Təqdim etdiyimiz işdə yüksək sıxlıqlı polietilenlə (YSPE) mikro- və nanoölçülü sirkon dioksid ($ZrO_2$) hissəcikləri əsasında alınmış kompozitlərin elektrik xassələrinə qamma şüalanmanın təsiri tədqiq edilmişdir. YSPE/ZrO2 mikrokompozitləri ilə müqayisədə YSPE/ZrO2 nanokompozitlərinin ionlaşdırıcı qamma şüalanmanın təsiri ilə daha geniş modifikasiya imkanlarının olduğu göstərilmişdir.

**1. AÇAR SÖZLƏR: Nanokompozit, mikrokompozit, YSPE, $ZrO_2$, qamma şüalanma**

**ABSTRACT:** İn our work, the effect of gamma radiation on the electrical properties of composites based on micro- and nano-sized zirconium dioxide ($ZrO_2$) particles with high-density polyethylene (HDPE) was studied. Compared to HDPE/$ZrO_2$ microcomposites, HDPE/$ZrO_2$ nanocomposites have been shown to have wider modification possibilities under the influence of ionizing gamma radiation.

**KEYWORDS:** nanocomposite, microcomposite, HDPE/$ZrO_2$, gamma radiation

## 2. GIRIŞ

Üzvü və qeyri üzvü komponentlər əsasında formalaşdırılaraq öz aralarında molekulyar səviyyədə qarşılıqlı təsirdə olan kompozitlər bu günümüzün perspektivli və müasir materialları hesab olunur. Belə nanokompozitlərdə fazalararası sərhəd layının mikrokompozitlərlə müqayisədə daha yüksək olması onların xassələrində ciddi fərqlərin yaranmasına səbəb olur (M. Kozako, 2004; Стукова Е. В., 2014). Təqdim etdiyimiz işin məqsədi yüksək sıxlıqlı polietilenlə (YSPE) mikro- və nanoölçülü sirkon dioksid (ZrO2) hissəcikləri əsasında alınmış kompozitlərin elektrik xassələrinə qamma şüalanmanın təsirinin tədqiqi olmuşdur.

## 3. TƏDQIQAT METODU

Nano- və mikrokompozitlər, çox narın YSPE ilə 20-30nm və 20-50mkm ölçülü ZrO2 hissəciklərinin müxtəlif həcm nisbətində çəkilmiş mexaniki qarışığının 165-170oS temperaturda, termik preslənməsi üsulu ilə alınmışdır. Nano- və mikrokompozit nümunələrinin dəyişən cərəyanda xüsusi müqavimətinin (ρ) doldurucu miqdarından lgρ=f(Φ) asılılığı E7-20 immitans ölçəninin köməyi ilə, nümunələrin sabit sürətlə (v~2,5K/dəq.) qızdırılması rejimində aparılmışdır.




**Şəkil 1.** Ilkin və qamma şüalandırılmış YSPE/ZrO2 nano- və mikrokompozitlərinin lgρ=f(Φ) tərkib asılılığı

İndi ilkin və müxtəlif dozalarda qamma şüalanmaya məruz qalmışYSPE və YSPE/ZrO2 nano- və mikrokompozitlərinin xüsusi müqavimətinin doldurucu miqdarından lgρ=f(Φ) tərkib asılılıqlarını təhlil edək (Şəkil1). Göründüyü kimi, ilkin YSPE/ZrO2 nanokompozitlərində nanohissəciklər miqdarının həcmcə 20%-ə qədər artması xüsusi müqavimətin ~2 tərtib dəyişməsi ilə nəticələnir. Müxtəlif dozalarda şüalandırılmış YSPE/ZrO2 nanokompozitlərində dozanın artmasi ilə əvvəlcə xüsusi müqavimətin artmasını (100kGy), sonra isə stabilləşməsini müşahidə edirik (300-500kGy). Güman edirik ki, müşahidə etdiyimiz bu hadisələrin səbəbi, nanokompozitlərdə hissəciklərin matrisada bərabər paylanması, yüksək konsentrasiyası və effektiv səth sahəsidir ki, nəticədə radiasion tikilmə destruksiya prosesindən üstün olur və makromolekul zəncirlərinin mütəhərrikliyi və elektrik keçiriciliyi aşağı düşür.

Mikrokompozitlərdə isə ZrO2 mikrohissəcikləri miqdarının 20 həcmi faizə qədər artması göstərir ki, həm ilkin, həm də qamma şüalanmış nümunələrin xüsusi müqavimətinin dəyişmə kinetikasında cox da ciddi fərqlər müşahidə olunmur. Mikrokompozitlərin tərkib asılılığında dozanın nisbətən aşağı qiymətlərində (100-300kGy) nümunələrin xüsusi müqavimətinin qiymətində tikilmə prosesinin təsirindən yaranan artım, dozanın sonrakı artımı ilə (500kGy) destruksiyaya keçid səbəbindən azalır. Aparılan tədqiqatlar nəticəsində YSPE/ZrO2 nanokompozitlərinin ionlaşdırıcı qamma şüalanmanın təsiri ilə daha geniş modifikasiya imkanlarının olduğu məlum olmuşdur.

**5. NƏTİCƏ**

YSPE ilə 20-30nm ölçülü $ZrO_2$ hissəcikləri əsasında alınmış YSPE/$ZrO_2$ nanokompozitlərinin ionlaşdırıcı qamma şüalanmanın təsiri ilə daha geniş modifikasiya imkanlarının olduğu müəyyən edilmişdir.

**ƏDƏBIYYAT SIYAHISI**

4. M. Kozako, R. Kido, N. Fuse, Y. Ohki, T. Okamoto, and T. Tanaka, (2004) Difference in Surface Degradation due to Partial Discharges between Polyamide Nanocomposite and Microcomposite, IEEE Conf. Electr. Insul. Dielectr. Phenomena, pp. 398-401.

5. Стукова Е. В. (2014), Диэлектрические свойства неоднородных микро- и наноразмерных сегнетоэлектрических систем, Диссертация на соискание ученой степени доктора физико-математических наук, Санкт-Петербург, 256 с.

# H$\alpha$ AND H$\beta$ LINES VARIABILITY IN 2015 OF THE AE HERBIG STAR HD 190073

**ADIGOZALZADE H.N., BASHIROVA U.Z., ISMAILOV N.Z.**

N.Tusi Shamakhy Astrophysical Observatory
Galaxcy and star formation
*hadigozalzade@gmail.com*
SETTL. Y.MAMMADALIYEV,
SHAMAKHY, AZERBAIJAN, AZ 5626

**ABSTRACT**

This paper describes and analyzes spectral data obtained for the young Herbig Ae star HD190073 in 2015, which has its axis of rotation oriented at a small angle to the line of sight. Observations were carried out at the Shamakhy Astrophysical Observatory in Azerbaijan. Our work focused on studying the Hα and Hβ lines variability and variability of some other lines line profiles and their variability over different time scales. Our long-term spectral observations of the star in 2015 made it possible to

identify a number of new characteristics of the star's spectrum and features of spectral variability in the unusual Herbig Ae star V1295 Aql. In this article we briefly list the main results that were obtained in our work using these data.

**Key words:** stars: pre-main sequence, circumstellar matter, accretion, wind; method: spectroscopy; object: HD190073.

## INTRODUCTION

HD190073 (V1295 Aql, MWC325, A2IIIe – B9IIep+sh) is an early-type object with emission lines in the visible spectrum. HD 190073 was variously classified as a peculiar Bep star [1] or as an evolved post main sequence A giant [2]. Recently HD190073 has gained recognition as a young Herbig Ae/Be star [3]. In spite of being situated in the constellation of Aquila rather far from well-known regions of star formation, it displays a large far-IR excess due to thermal radiation of cool circumstellar (CS) dust [8]. The energy distribution of HD190073 in this spectral region is similar to that of well known Herbig Ae stars, like AB Aur, HD 163296 and HD 31648 [7].

## 1. OBSERVATIONS

In 2015, a total of 22 nights of observations were carried out during the period June-September, and this is the longest observation season. Observations were carried out with the Cassegrain Echelle Spectrograph (CES), which was created on the basis of the UAGS spectrograph [5,6]. As a detector was used a CCD matrix 530x580 px, with size of pixels 24 mm developed at the Special Astrophysical Observatory (SAO) of the Russian Academy of Sciences. Observations were made in the λ range 4700-6700 Å. The CES spectrograph obtained a total of 22 pairs of spectrograms suitable for processing with a spectral resolution of 14000.

In the Fig.1, we have presented all profiles of the lines Hα and Hβ, obtained in 2015. The line Hα has one peak emission structure that superimposed a typical absorption profile with good detected absorption component in blue wing-P Cyg profile. For some dates, we can detect weak absorption component in the red wing of Hα. The emission peak is asymmetric and the peak mainly has positive radial velocity in range + 50-60 km/s, since bisector radial velocity RVbis (displacement of the line center at the level of the half intensity) shows mainly ~ +30 km/s values. As can be seen from Fig.1, emission components in the line Hβ has relatively weak intensity than in the line Hα. Emission component demonstrated double peak emission with clearly detected central absorption. Both of the line profiles, – Hα and Hβ is showed variability from night to night.

Figure 2 shows graphs illustrating variability in individual parameters of the Hα line. In Fig. 2, individual panels from left to right and from top to bottom shows the time variability in the following parameters: for dates JD 2457230-2455775 we have detected increasing of the parameters EW1a, decreasing of EWe and some red displacement in radial velocities of emission component of the line Hα. As can be seen from Fig.2, all these parameters are demonstrated variations with characteristic time nearly 45 days. The maximal amplitude of variation of the radial velocity of emission line is about 25 km/s.




**Fig.1.** All obtained profiles of the line Hα (left two panels) and Hβ (right two panels) in the spectrum

V1295 Aql on the observations for 2015. Dates for each profiles in the figure presented in JD 2450000+

If we compare the profile variability of the Hα line with this interval of time variations, demonstrated in the Fig.1, we can make sure that increasing of intensity of blue absorption component and variation of measured spectral parameters occurred simultaneously. In the Fig1 we clear can see that starting from JD 2457230 blue absorption component in Hα emission is appeared. Such structure in emission component is observed up to JD 2457275, total for 45 nights. Interestingly that variability of intensity versus wavelength of the emission component for parameter σλ (rms of intensity versus λ) shows double peak structure, which demonstrated that main variability in the structure of emission, occurred on the both blue and red wings of the line Hα (last panel in Fig.2). To make it easier to compare the values of σλ with the average intensity for the season, we formally added one to the values of σλ. It is indicated that we have observed both ejection and fall of the matter in the circumstellar disc. This argument showed that rather in V1295 Aql we could see some signs of the matter accretion.




**Fig 2.** Variation of spectral parameters (from Table 2) and profiles of the line Hα. In last panels presented superimposed line profiles (left) and average profile for the 2015. With dotted lines demonstrated rms ($\sigma_\lambda$) of intensity in wavelength. To make it easier to compare the values of $\sigma_\lambda$ with the average intensity for the season, we formally added one to the values of $\sigma_\lambda$.

## 2. CONCLUSIONS

Our long-term spectral observations of the star in 2015 made it possible to identify a number of new characteristics of the star's spectrum and features of spectral variability in the unusual Herbig Ae star V1295 Aql. Below we briefly list the main results that were obtained in our work using these data.

**1.** We were able to trace the progress of variations in the profiles and spectrophotometric parameters of the emission components of the Hα and Hβ hydrogen lines. It is shown that with an increase in the blue absorption component in the profiles of hydrogen lines, the variability of the star's spectrum increases, which indicates the existence at this moment of an increase in mass ejection from the star. In a time interval of 98 days of observations in 2015, synchronous variability was discovered in these lines with a characteristic time of about 40 days.

**2.** All other spectral lines showed a synchronous smooth variation in spectrophotometric parameters with the lines of hydrogen Hα and Hβ. For different lines, the magnitude of the amplitude of variations in different parameters differs.

**REFERENCES**

1. Allen D. A., & Swings J. P., (1976). Astronomy & Astrophysics, 47, 293
2. Cidale L., Zorec J., & Morrell N., (2000). The Be Phenomenon in Early-Type Stars, ASP Conf. Ser., in IAU Colloq.175, 214, 87
3. Cuttela M., & Ringuelet A. E., (1990). MNRAS, 246, 20
4. De Winter D., van den Ancker M. E., Maira A., et al., (2001). Astronomy & Astrophysics, 380, 609
5. Ismailov N.Z., Bahaddinova G.R.,Kalilov O.V., Mikailov Kh.M. (2013) Astrophys. Bull., 68, 196
6. Kh. M. Mikailov, V. M. Khalilov, and I. A. Alekberov, (2005) Tsirk. ShAO 109, 21–28
7. Malfait K., Bogaert E., & Waelkens C., (1998) Astronomy & Astrophysics, 331, 211
8. Sitko M. L., (1981) The Astrophysical Journal Letters, 247, 1024

# XARİCİ MAQNİT SAHƏSİNDƏ TƏRS KOMPTON SƏPİLMƏSİNDƏ ENERJİ İTKİSİ VƏ SƏPİLƏN FOTONLARIN ENERJİSİNİN ORTA QİYMƏTİ ARASINDA ƏLAQƏ

**VƏLİ HÜSEYNOV**
Fizika İnstitutu, Kosmik şüa mənbələrinin fizikası laboratoriyası;
Bakı Mühəndislik Universiteti, Fizika kafedrası;
Azərbaycan Texniki Universiteti, Mühəndis fizikası və elektronika kafedrası;
BAKI, AZƏRBAYCAN;
Sumqayıt Dövlət Universiteti, Fizika və onun tədrisi metodikası kafedrası
vgusseinov@yahoo.com
SUMQAYIT, AZƏRBAYCAN

**AYSEL ƏHMƏDZADƏ**
Bakı Mühəndislik Universiteti, Pedaqoji fakültə, Fizika kafedrası
*aehmedzade4@std.beu.edu.az*
XIRDALAN, AZƏRBAYCAN

**XÜLASƏ**

Təqdim olunan işdə xarici maqnit sahəsində tərs Kompton səpilməsinə baxılmış və son halda olan fotonların enerjilərinin orta qiyməti ilə elektronlar tərəfindən itirilən enerji arasında yaranan əlaqə müəyyənləşdirilmişdir. Göstərilmişdir ki, xarici maqnit sahəsində kifayət qədər aşağı enerjili fotonlar çox yüksək Landau səviyyələrində yerləşən ultrarelyativistik elektronlardan səpilərkən səpilən fotonun enerjisinin vahid zamanda vahid həcmə düşən orta qiyməti elektronlar tərəfindən vahid zamanda mühitin (foton qazının) vahid həcminə ötürülən enerjiyə bərabərdir.

**AÇAR SÖZLƏR: Tərs Kompton səpilməsi-1, Landau səviyyəsi-2, enerji itkisi-3**

**ABSTRACT**

In the presented work, the inverse Compton scattering in an external magnetic field is considered and the relationship between the mean value of the energy of the photons in the final state and the energy lost by the electrons is determined. It is shown that when sufficiently low-energy photons are scattered by the ultrarelativistic electrons occupied very high Landau levels in an external magnetic field, the mean value of the energy of the scattered photon per unit volume per unit time is equal to the energy transferred by the electrons to the unit volume of the medium (photon gas) per unit time.

**KEY-WORDS: Inverse Compton scattering-1, Landau level-2, energy loss-3**

## GIRIŞ

Kifayət qədər aşağı enerjiyə malik olan fotonların ($\omega \ll m_e \cong 0{,}511\ MeV$; bu fotonlar yumşaq fotonlar adlanır) ultrarelyativistik elektronlardan ($\varepsilon \gg m_e$) səpilməsi nəticəsində enerjiləri kifayət qədər yüksək olan sərt fotonlar yaranır. Bu hadisə tərs Kompton səpilməsi və ya tərs Kompton effekti adlanır (Sokolov və b., 1983 ). Tərs Kompton səpilməsi $\gamma + e^- \to \gamma' + e^{-\prime}$reaksiyası üzrə baş verir. Bu proses astrofizikada mühüm əhəmiyyət kəsb edir. Belə ki, qara deşiklərın ətrafında olan akkresiya diski tərəfindən buraxılan istilik fotonlarının enerjisinin, ətrafdakı tacın ultrarelyativistik elektronlarından səpilməsi nəticəsində, çox yüksək enerjilərə qədər artması fərz olunur. Bu prosesə qamma şüaların sıçrayışlı alışmasının əsas mexanizmlərindən biri kimi də baxılır (Zhan Shan-Qun və b., 1993; Faure və b., 2024). Tərs Kompton səpilməsindən həm də yüksək enerjili fotonlara malik olan lazer şüasının alınmasında istifadə olunur (Krafft və b., 2023). Maqnit sahəsinin iştirakı tərs Kompton səpilməsinin gedişatını əhəmiyyətli dərəcədə dəyişir. Maqnit sahəsinin induksiya vektorunun qiyməti $B$ Şvinqer sahə qiymətindən $B_0 = m_e^2 c^3/(e\hbar) = 4{,}414 \times 10^{13}\ G$ çox-çox kiçik olduqda, yəni $B \ll B_0$ şərti ödənildikdə, ultrarelyativistik elektronlar yüksək Landau səviyyələrini ($n \gg 1$, $n$ – Landau səviyyəsinin nömrəsini göstərir) tutur. Bu halda kifayət qədər aşağı enerjili fotonlar yüksək Landau səviyyələrində yerləşən elektronlardan səpildikdə həmin elektronlar öz enerjilərinin böyük bir hissəsini səpilən fotonlara verərək aşağı Landau səviyyələrinə keçir və nəticədə səpilmənin sonunda olan fotonların $\omega'$ enerjisi səpilmənin başlanğıcında olan fotonun $\omega$ enerjisindən çox-çox böyük olur: $\omega' \gg \omega$. Praktik tətbiqlər üçün tərs Kompton səpilməsinə xas olan enerji itkilərini və səpilmə prosesinin sonundakı fotonların enerjilərinin orta qiymətini hesablamaq lazım gəlir. Tərs Kompton səpilməsi ilə bağlı yuxarıda sözügedən elmi ədəbiyyatın və orada qeyd olunan mənbələrin təhlili göstərir ki, baxılan prosesdə elektronlar tərəfindən enerji itkiləri və səpilən fotonların enerjisi müxtəlif müəlliflər tərəfindən tədqiq olunsa da enerji itkiləri ilə səpilən fotonların enerjisinin orta qiyməti arasında əlaqəyə diqqət yetirilməmişdir. Araşdırmalarımız göstərir ki, xarici maqnit sahəsində baş verən tərs Kompton effekti üçün səciyyəvi olan səpilən fotonların enerjilərinin orta qiyməti və elektronlar tərəfindən itirilən enerji itkisi kimi iki kəmiyyətdən birini hesablamaqla digərini təyin etmək olur və bu halda hər iki kəmiyyəti ayrı-ayrılıqda hesablamağa ehtiyac qalmır.

Bu işdə məqsəd xarici maqnit sahəsində baş verən tərs Kompton səpilməsi üçün son halda olan fotonların enerjilərinin orta qiyməti ilə elektronlar tərəfindən itirilən enerji itkisi arasında yaranan əlaqəni müəyyənləşdirməkdir.

## TƏDQIQAT METODU, ENERJİ İTKİSİ VƏ SƏPİLƏN FOTONUN ORTA ENERJİSİ

Məlumdur ki, xarici sahədə proseslər üçün səciyyəvi olan vahid zamanda vahid həcmdəki diferensial ehtimal, vahid zamanda vahid həcmə ötürülən enerji itkisi və son haldakı fotonların enerjisinin orta qiyməti, uyğun olaraq,

$$dw = 2\pi \frac{1}{V} \int \left|A_{if}\right|^2 \delta\left(\sum E_i - \sum E_f'\right) \prod dn_i f_i \prod dn_f \left(1 - f_f'\right), \quad (1)$$

$$\frac{d\mathrm{E}}{dt} = \frac{2\pi}{V} \int \prod dn_i f_i \prod dn_f \left(1 - f_f'\right) \left|A_{if}\right|^2 q^0 \delta\left(\sum E_i - \sum E_f'\right), \quad (2)$$

$$< \omega' >= \frac{\int_0^\infty \omega' dw}{\int_0^\infty dw} \quad (3)$$

düsturları ilə hesablanır. (1) və (2) düsturlarında $A_{if}$ kəmiyyəti baxılan prosesin amplitudu olub, prosesin $M_{if}$ matris elementi ilə

$$M_{if} = 2\pi A_{if} \delta\left(\sum E_i - \sum E_f'\right) \quad (4)$$

şəklində əlaqəlidir. Tədqiq olunan prosesin matris elementi və amplitudu Feynman diaqram texnikası və $S$ -matris üsulundan istifadə etməklə tərtib olunur. Xarici elektromaqnit sahəsinin dördölçülü potensialının kalibrləşməsi $A^\mu = (0, 0, xB, 0)$ şəklində olduqda başlanğıc halda olan elektronun $dn_i$ hallar sayı

$$dn_i = \frac{L_y}{2\pi} dp_y \frac{L_z}{2\pi} dp_z \quad (5)$$

ifadəsi ilə, son halda olan elektronun $dn_f$ hallar sayı

$$dn_f = \frac{L_y}{2\pi} dp_y' \frac{L_z}{2\pi} dp_z' \quad (6)$$

ifadəsi ilə, fotonlar halında isə başlanğıc və son hallardakı fotonların $dn_i$ və $dn_f$ hallar sayı, uyğun olaraq, $dn_i = Vd\vec{k}/(2\pi)^3$ və $dn_f = Vd\vec{k}'/(2\pi)^3$ ifadələri ilə müəyyən edilir. Burada $\vec{k}$ və $\vec{k}'$, uyğun olaraq, başlanğıc və son haldakı fotonun 3-ölçülü impulsu, $V$ – prosesin baş verdiyi (normallaşdırıcı) həcmdir. (1) və (2) düsturlarında $\sum E_i$ və $\sum E_f'$, uyğun olaraq, başlanğıc və son halda olan zərrəciklərin enerjiləri cəmi, $f_i = \{exp[(E_i - \mu_i)/(k_B T_i)] \pm 1\}^{-1}$ və $f_f' = \{exp[(E_i' \pm \mu_i')/(k_B T_i')] \pm 1\}^{-1}$, uyğun olaraq, başlanğıc və son halda olan zərrəciklərin paylanma funksiyalarıdır. $f_i$ və $f_f'$ funksiyalarının təyinində "$\pm$" işarəsində "+", uyğun olaraq, başlanğıc və son halda olan elektronların Fermi-Dirak paylanma funksiyasını, "−", uyğun olaraq, başlanğıc və son halda olan fotonların Boze-Eynşteyn paylanma funksiyasını, $E_i$ ($E_f'$) - başlagıc (son) halda olan zərrəciyin enerjisini, $\mu_i$ ($\mu_i'$) və $T_i$ ($T_i'$) - başlanğıc (son) haldakı elektron və ya foton qazının, uyğun olaraq, kimyəvi potensialını və temperaturunu, $k_B$ Bolsman sabitini göstərir. (2) düsturunda $q^0 = \omega' - \omega$ kəmiyyəti son və başlanğıc haldakı fotonların enerjiləri fərqini göstərir.

$\omega' \gg \omega$ şərti ödənildikdə $q^0 = \omega' - \omega \approx \omega'$ olur və bu halda elektronlar tərəfindən vahid zamanda mühitin (foton qazının) vahid həcminə ötürülən enerji itkisi üçün aşağıdakı ifadə alınır:

$$\frac{d\mathrm{E}}{dt} = \int_0^\infty q^0 dw = \int_0^\infty \omega' dw, \quad (7)$$

Digər tərəfdən (3) düsturundan və $\int_0^\infty dw = 1$ normallaşma şərtindən

$$\int_0^\infty \omega' dw = <\omega'> \int_0^\infty dw = <\omega'> cm^{-4} \quad (8)$$

alınır. Beləliklə, (7) və (8) ifadələrinin müqayisəsi göstərir ki,

$$\frac{d\mathrm{E}}{dt} = <\omega'> cm^{-4} . \quad (9)$$

Qeyd etmək lazımdır ki, $\hbar = c = 1$ vahidlər sistemində zamanın ölçü vahidi *saniyə* (*s*) deyil, *santimetrdir* (*sm*) (Ternov, 1982).

**NƏTICƏ**

Beləliklə, $\omega' \gg \omega$ , $\omega \ll m_e$, $\varepsilon \gg m_e$ və $B \ll B_0$ şərtləri daxilində alınmış (9) münasibəti onu göstərir ki, xarici maqnit sahəsində kifayət qədər aşağı enerjili foton dəstəsi çox yüksək Landau səviyyələrində yerləşən ultrarelyativistik elektron qazından səpilərkən səpilən fotonun orta enerjisinin vahid zamanda vahid həcmə düşən qiyməti elektronlar tərəfindən vahid zamanda mühitin (foton qazının) vahid həcminə ötürülən enerjiyə (enerji itkisinə) bərabərdir. Bu halda xarici maqnit sahəsində baş verən tərs Kompton effekti üçün səciyyəvi olan səpilən fotonların enerjilərinin orta qiyməti və elektronlar tərəfindən itirilən enerji itkisi kimi iki fiziki kəmiyyəti təyin etmək üçün onları ayrı-ayrılıqda hesablamaq əvəzinə onlardan hər hansı birini hesablamaq və (9) münasibətindən istifadə etmək kifayətdir.

**ƏDƏBIYYAT SIYAHISI**

1. Соколов А. А., Тернов И. М., Жуковский В. Ч., Борисов А. В. (1983). Квантовая электродинамика. М.: Изд-во Московского университета, 312.

2. Zhan Shan-Qun, Shi Tian-Yi. Chinese Astronomy and Astrophysics. (1993). 17 (2), 136-143.

3. Faure J.C., Tordeux D., Gremillet L. and Lemoine M. (2024). Phys. Rev. E, 109 (1) 015203.

4. Krafft G. A., Terzić B., Johnson E. and Wilson G. Phys. Rev. Accel. Beams (2023). 26 (3), 034401.

5. Тернов И. М., Халилов В. Р., Родинов В. Н. (1982). Взаимодействия заряженных частиц с сильным электромагнитным полем. М.: Изд-во Московского университета, 304.

# BƏRK VƏ MAYE FAZALARDAN KRİSTAL BÖYÜMƏSİNİN BƏZİ OXŞAR XÜSUSİYYƏTLƏRİ

**R.B.Bayramlı[1], V.İ.Nəsirov[2], E.V.Nəsirov[3], S.V.İsayeva[1]**
[1]Bakı Mühəndislik Universiteti.
[2]Azərbaycan Dövlət Pedaqoji Universiteti.
[3]Heydər Əliyev adına Hərbi İnstitut
rabayramov@beu.edu.az

**XÜLASƏ**

Təqdim olunan işdə maye və bərk fazadan kristal böyüməsi arasındakı oxşarlıqlar nəzərdən keçirilmiş və müəyyən edilmişdir ki, baxılan kristallarda polimorf çevrilmələr zamanı kristal böyüməsi ana kristal daxilində yeni kristal rüşeyminin yaranması və böyüməsi ilə gedir. Rüşeymlərin sayından aslı olaraq tədqiq olunan kristallarda monokristal → monokristal və monokristal → polikristal çevrilmələr müşahidə oluna bilər. Bundan əlavə müəyyən olunmuşdur ki, baxılan kristallarda polimorf çevrilmələr maye fazadan böyüməkdə olduğu kimi iki ölçülü rüşeyimli mexanizmlə baş verir.

**AÇAR SÖZLƏR:** polimorf çevrilmə, çevrilmənin mexanizmi, monokristal, polikristal, faza, rüşeym, morfologiya.

## GİRİŞ

Polimorf çevrilmələr zamanı kristal böyüməsinin kinetikasının tədqiqi, prosesin mexanizminin öyrənilməsində mühüm rol oynayır. Bu çevrilmələrin kinetikasının tədqiqi kristal böyüməsini proqnozlaşdırmağa və istənilən tərkib və xassəli kristalların alınması şərtlərini optimallaşdırmağa imkan verir. Onu da qeyd edək ki, temperatur, təzyiq və konsentrasiya kimi amillər kristal böyümə kinetikasına və son kristal quruluşuna təsir göstərə bilir.

Təcürbələr göstərir ki, bərk mühitdən kristal böyüdülməsi ilə maye və qaz fazalarından kristallaşma arasında müəyyən uyğunluqlar vardır. Belə ki, maye fazadan böyümə zamanı müşahidə olunan ritmik, pilləli, dendrit, elastiki böyümələr polimorf çevrilmələr zamanı da müşahidə olunur [1, 2]. Bundan başqa morfoloji tədqiqatlar göstərir ki, maye və bərk fazalardan kristal böyümələrinin morfologiyası da demək olar ki, biri-birndən fərqlənmir.

Təqdim olunan iş polimorf çevrilmələr zamanı kristal böyüməsi mexanizminin maye fazadan kristal böyüməsi ilə müəyyən uyğunluqların təhlilinə həsr olunmuşdur.

Qələvi metalların nirat birləşmələrində və eləcə də onların bərk məhlullarında aparılan tədiqatlar göstərir ki, həmin kristallarda polimorf şevrilmələr kristal daxilində yeni kristal rüşeyminin yaranması və böyüməsi ilə gedir [3-6]. Belə kristal mərkəzlərinin sayı bir və ya bir neçə ola bilir və bu saydan asılı olaraq monokristal → monokristal və yaxudda monokristal → polikristal çevrilmə baş verir. Doğurdan da maye fazada da kristal mərkəzlərinin sayından aslı olaraq monokristal və ya polikristal əldə etmək olar. Polimorf çevrilmələrdə kristal rüşeyminin sayı kristal defektlərindən və temperatur rejimindən, maye fazadan böyümə zamanı isə məhlulun doyma dərəcəsindən asılıdır.

## TƏDQİQAT METODU

Polimorf çevrilmələr zamanı yeni modifikasiya kristal bir və ya bir neçə kristal rüşeyminin böyüməsi ilə gedə bilər (şəkil 1). Şəkildən göründüyü kimi bu çevrilmələr iki kristal rüşyminin yaraması və böyüməsi ilə baş verir. Birinci rüşeyim ana kristalda sol tərəfdən, o birisi isə kristalın tən ortasında birincidən birqədər gec yaranır. Birinci rüşeym [001] istiqamətində, ikinci isə eyni zamanda hər iki krisatlloqrafik istiqamətdə böyüyür. Kristal böyüməsinin sürəti də [001] istiqamətlərində fazaları ayıran sərhəddin hərəkət sürətinə görə təyin olunmuşdur [7-8].




**Şəkil 1.** $K_{0.945}Rb_{0,055}NO_3$ kristalında rombik quruluşun heksaqonal quruluşa çevrilməsi prosesinin mikrofotoqrafiyaları. *a*) II-kristal (rombik), b) II-kristal daxilində III-kristal (heksaqonal) rüşeyiminin böyüməsi, c) və d) II-kristal daxilində III-kristalın (heksaqonal) iki rüşeyiminin böyüməsi. Böyütmə 90 dəfə.

Rentgenoqrafik tədqiqatlar göstərir ki, tədqiq olunan nümunədə monokristal → monokristal çevrilməsi baş vermişdir. Qeyd edək ki, ifrat doymuş məhlulu sürətli soyutduqda baş verən sürətli kristallaşma kimi, polimorf çevrilmələr zamanı da kristalı sürətlə qızdırmaqla buna nail olmaq olar.

Qələvi metalların nitrat birləşmələrində aparılan tədqiqatlar nəticəsində υ=f(ΔT) asıllığı üçün aşağıdakı empirik asıllıq alınmışdır: $\upsilon = (a\Delta T + b\Delta T^2 + c\Delta T^3)\cdot 10^{-2}\,\frac{sm}{san}$. *a*, *b*, *c* əmsalları müxtəlif kristallar üçün müxtəlifdir. Alınan nəticələrin təhlili göstərir ki, polimorf çevrilmələrin sürət ölçülmlərindən alınan nəticələr M.Folmerin mayedən kristal böyüməsi üçün verdiyi tənliklə yaxşı uzlaşır [9].

$$\upsilon = \kappa_1 \exp(-\frac{\kappa_2}{T_0}) \exp(-\frac{\kappa_3}{T_0 \Delta T})$$

Tənlik kristal üzündə iki ölçülü rüşeymin ayrı-ayrı molekulların ardıcıl birləşməsi ilə yaranması şərtindən alınmışdır. Tənliyə daxil olan kəmiyyətlər, baxılan hal üçün $k_1$=Bνd, ν=$10^{12}$-$10^{13}$$san^{-1}$ molekulların rəqs tezliyi, d-böyümə istiqamətində atomlar arası məsafə, B=$10^7$, ana kristaldan yeni kristala keçən molekulların sayı, $k_2=\frac{E}{R}$ molekulların ana kristaldan yeni kristal səthinə keçmək üçün enerji həddini müəyyən edən kəmiyyət, $k_3$-iki ölçülü kristal rüşeyminin yaranmasına sərf olunan enerjidir, E- 1 mola düşən aktivləşmə enerjisi, R-universal qaz sabitidir. Maye fazadan kristal böyüməsi üçün verilən nəzəri düsturlardan yalnız Folmer tənliyi qələvi metalların nitrat birləşmələrində polimorf çevrilmələrin aktivləşmə enejisi üçün yaxşı nəticə vermişdir.

Folmer nəzəriyyəsinə görə stabil fazaya keçməzdən əvvəl atom və ya molekullar fazaları ayıran qata keçib, müəyyən vaxtda orada qala bilər və proses böyüyən kristal üzərində ikiölçülü rüşeym vasitəsi ilə gedər.

**NƏTİCƏ**

Beləliklə, deyə bilərik ki, qələvi metalların nitrat birləşmələrində və onların bərk məhlullarında polimorf çevrilmələr ikiölçülü rüşeyimli mexanizmi ilə baş verir.

Onu da qeyd edək ki, maye fazadan böyümədən fərqli olaraq bir çox hallarda bərk fazadan böyümə zamanı ana kristal yeni yaranan kristala istiqamətləndirici təsir göstərir. Bunun nəticəsidir ki, qarşılıqlı çevrilən modifikasiya kristalları arasında kristalloqrafik istiqamət əlaqələri saxlanılır. Üzvü maddə kristallarında isə bu əlaqə əsasən saxlanılmır.

**ƏDƏBİYYAT SİYAHISI**

1.Асадов Ю.Г., Насиров В.И. (1971). О ритмическом характере роста новой фазы в нитрате калия. Докл. АН СССР, 191(6), 1280.

2. Асадов Ю.Г. (1967). Рост кристаллов гексагонального селена из кристаллов моноклинного селена при полиморфном превращении. Док. АН СССР, 137, 3

3.Асадов Ю.Г., Насиров В.И. (1970). О морфологии роста кристаллов при α↔β, β→γ и γ→α превращениях в нитрате калия. Кристаллография, 15(6), 1204.

4. Nasirov V.I., Bairamov R.B. (2016). The kinetics of polymorphic transformation in $K_{1-x}Cs_xNO_3$ (x=0,015; 0,035; 0,045) single crystals. ANAS Reports, 72(1), 29-33.

5. Nasirov V.I., Bairamov R.B. and Nasirov E.V. (2015). Morphology and Kinetics og Polymorphic Transformations in $K_{0.965}Rb_{0.035}NO_3$ Single Crystals. Crystallography Reports, 60(7), 1-5.

6. Nasirov V.I., Bairamov R.B. and Nasirov E.V. (2020). Polymorphic Transformations in the $K_{0.945}Ag_{0.055}NO_3$ Single Crystal. Crystallography Reports, 65(2), 309-313.

7. Насиров В.И. (1997). Полиморфизм в оптически прозрачных кристаллах. Баку, 165.

8. Əsədov Y.Q., Nəsirov V.İ., Bayramov R.B, Nəsirov E.V. (2021). Optik şəffaf kristallarda quruluş çevrilmələrinin tədqiqi üsulu. ARƏMA, Sənaye mülkiyyəti, İxtiralar, faydalı modellər. A20190095. 3, 6.

9. Folmer M. (1939). Kinetik of phase formation. Chemyitry, 5, 38

# QAMMA ŞÜALARIN SILISIUM FOTOELEKTRON GÜCLƏNDIRICILƏRIN PARAMETRLƏRINƏ TƏSIRININ ÖYRƏNILMƏSI

**müəlif: A.H. Məmmədli, Ç.Y. Abbasova, N.Y. Süleymanova**

ETN- Radiasiya Problemləri İnstitutu
e-mail: arzu.humbetqizi@gmail.com
Bakı, Azərbaycan

**Açar sözlər :** MSFD - Mikro pikselli selvari fotodiod, Qr- Qrey, $I_q$ – qaranlıq cərəyan.
MAPD – Micropixell Avalanche Photodiode, Gy- Grey, $I_{dk}$ – dark current.

**Giriş**

Hal-hazırda tibb sahəsinin, nüvə və kiçik zərrəciklər fizikasının, habelə sənaye, təhlükəsizlik və hərbi sahələrin inkişafında ionlaşdırıcı zərrəcik və şüa mənbələrinin rolu məlumdur. Həmçinin radioaktiv mənbələrin buraxdığı zərrəcik və şüaların enerjisini, növünü və sayını yüksək dəqiqliklə təyin etmək vacib məsələlərdən biridir. İonlaşdırıcı şüa yayan radioizotopların və bunlar əsasında hazırlanmış qurğulardan buraxılan şüalanmanın enerjisini, növünü və sayını düzgün təyin etmək aparılan təcrübələr üçün olduqca vacibdir. Qeyd edilən bu parametrlərin dəqiq təyin edilməsi yeni yaranan izotopların növünü, sayını, onların yarada biləcəyi effektləri düzgün analiz etməyə imkan verir.

Yarımkeçirici maddələrin yetişdirilmə texnalogiyasında əldə edilən uğurlar nəticəsində silisium əsasında hazırlanan gücləndiricilər bir çox sahələrdə: nüvə fizikası təcrübələrində, təhlükəsizlik sahəsində, kosmik tədqiqatlarda və optik rabitə sistemlərində uğurla istifadə olunur. [1-4]. Silisium

əsasında hazırlanan fotoqeydedicilər çox saylı foton selinin qeydedilməsindən başlayaraq tək fotonları qeydetmə həsaslığına qədər təkmilləşdirilmişdir. Məhz belə fotoqeydedicilərdən biri də silisium əsaslı mikro pikselli selvari fotodiodlardır (MSFD). Bu fotoelektron gücləndiricilərin quruluşu strukturna 2 növü mövcuddur: səthi və dərin pikselli MSFD. Silisium əsaslı mikro pikselli selvari fotodiodlar yüksək kvant effektivliyinə, geniş xəttilik diapazonuna, yüksək maqnit sahəsinə davamlılığı, radioaktiv çirklənmənin az olması, aşağı işləmə gərginliyə və kiçik ölçüyə malik olması onların ionlaşdırıcı zərrəciklərin qeydedilməsində və spektroskopiyada geniş tətbiq edilməsinə imkan verir [5-7].

MSFD fotodiodların əsas parametrlərinin: qaranlıq cərəyan- $I_q$ deşilmə gərginliyi- $U_b$, gücləndirmə əmsalı-M şüalanma dozasından, temperaturdan asılılığının tədqiqi yüksək effektivli ssintilyator detektorların hazırlanması üçün olduqca vacibdir.

Təqdim edilən işdə Co-60 mənbəsindən istifadə edilərək yüksək radiasiya dozasında MAPD kalobarasiya çərçivəsində hazırlanmış MSFD-3NK diodlarının qaranlıq cərəyanı tədqiq edilmişdir.

**Təcrübə və Nəticələrin müzakirəsi.**

Qamma şüalarla şüalandırma üçün 2 ədəd MSFD-3NK diodundan istifadə edilmişdir. Hər 2 diodun işləmə gərginliyi bir birinə yaxın seçilmişdir. Şüalanmış diodun qaranlıq cərəyanını ölçülərkən hərdəfə etalon dioddan istifadə edilmişdir. Diodlar ~146298 GBk aktivlikli Co-60 mənbəsindən istifadə edilərək şüalandırılmışdır. Diodlar gərginlik mənbəsindən 8 sm məsafədə şüalandırılmışdır. MSFD-3 NK diodları 2 mərhələdə şüalandırılmışdır: 10kQr və 40kQr. Şüalanmış diodların qaranlıq cərəyanlarının ölçülməsi şüalanma prosesindən 2-3 saat sonra $22^0$C temperaturda aparılmışdır. Ölçmələr zamanı qeydə alınan temperatur dəyişməsi 2% olmuşdur. MSFD-3NK fotodiodlarının Volt-Amper xarakteristikalarının ölçülməsi zamanı şəkil 1.də təsvir edilən dövrədən istifadə edilmişdir.




Şəkil.1. MSFD diodların $I_q$-qaranlıq cərəyanlarını ölçmək üçün istifadə edilən dövrə.

Şək. 2.-də 10kQr və 40kQr doza ilə şüalandırılmış MSFD-3NK diodlarının VAX-nın tam dəyişməsi göstərilmişdir.




Şəkil. 2. MSFD-3NK fotodiodunun qaranlıq cərəyanının müxtəlif dozalarda gərginlikdən asılılığı: Şüalanmadan əvvəl; 10 kQr, 40kQr

Qrafik asılılıqdan da göründüyü kimi 10kQr dozada MSFD-3NK diodun 87,2V gərginlikdə qaranlıq cərəyan 230 nA-dən artaraq 549 nA olmuşdur və qaranlıq cərəyan 2,38 dəfə artmışdır. 10kQr doza ilə şüalandırılmış diodun zamandan asılı olaraq VAX-nın dəyişməsidə tədqiq edilmişdir. 10 gün

müddətində MSFD- 3NK diodlarının VAX-da dəyişiklik müəyyən edilməmişdir. 40kQr doza ilə şüalanma zamanı qaranlıq cərəyan 230 nA-dən 1304 nA-ə kimi artmışdır. MSFD-3NK diodlarının 87,2V gərginlikdə qaranlıq cərəyanın ümumi dəyişməsi ilkin hala nəzərən təqribən 5,66 dəfə olmuşdur. Həmçinin hər iki şüalanma mərhələsindən sonra fasilələrlə VAX- xarakteristikası ölçülmüş və heç bir dəyişiklik müşahidə edilməmişdir.

**Ədəbiyyat**

1. Sadygov Z, Olshevski O.,Chirikov I. et al. Three advanced designs of micro-pixel acalanche photodiodes: Their present status, maximum possibilities and limitations// Nucl. Instrum. Meth. A,2006, V.567,p.70-73.

2 . Gamma ray detection performance of newly developed MAPD-3NM-II photosensor with LaBr3(Ce) crystal, Michael Holik, Farid Ahmadov, Azer Sadigov, Gadir Ahmadov, Daniyar Berikov, Fadahat Mamedov, Jalal Naghiyev, Ivan Stekl, Ziraddin Sadygov, Arzu Mammadli, Aydan Garibli, Ondrej Urban, Jan Zich, 15855 (2022).

3 **.** Improvement of parameters of micro-pixel avalanche photodiodes, AZ Sadigov, FI Ahmadov, ZY Sadygov, GS Ahmadov, D Berikov, Michael Holík, A Mammadli, RA Akbarov, SM Nuruyev, K Ajdarli, A Garibli, E Doganci, Y Mora, E Yilmaz *JINST* 17 P07021,2022.

4. Compact and sustainable electronic module for silicon photodetectors, A Sadigov, S Nuruyev, R Akbarov, DB Berikov, A Madadzada, A Mammadli, S Lyubchyk, E Yilmaz, Eurasian Journal of Physics and Functional Materials 7 (3), 148-154.

5. A. Sadigov, F. Ahmadov, Z. Sadygov, G. Ahmadov, D. Berikov, M. Holík, A. Mammadli, R. Akbarov, S. Nuruyev, K. Ajdarli, A.Garibli, E. Doganci, Y. Mora, E. Yilmaz, Improvement of parameters of micro-pixel avalanche photodiodes

6. Gamma-ray spectroscopy with MAPD array in the readout of LaBr3: Ce scintillator, G Ahmadov, F Ahmadov, M Holík, D Berikov, Z Sadygov, R Akbarov, Journal of Instrumentation 16 (07), P07020

7.Investigation of the possibility of a new detector basedon SiPM in nuclear forensics, M. Holik, F. Ahmadov A. Sadygov, G. Ahmadov, J. Naghiyev, Z. Sadygov, E. Yilmaz, O. Urban, D. Berikov, JINST_007P_1022, November 13, 2022, https://doi.org/10.1088/1748-0221/00/00/P01022

# DETERMINATION OF FREQUENCY OF POLYMER CERAMIC COMPOSITES BY İMPEDANCE SPECTROSCOPY METHOD

**MEHDIYEVA NARGIZ**
Bakı Engineering University
*Pedagogy/ Physics*
*E-mail: nmehdiyeva@beu.edu.az BAKU,AZERBAİJAN*

**AHMEDLI NURAY**
Bakı Engineering University
*E-mail: nehmedli2@std.beu.edu.az* BAKU,AZERBAİJAN

**SALIGA ISAYEVA**
Bakı Engineering University
*E-mail:sisayeva1@std.beu.edu.az*
BAKU,AZƏRBAYCAN

**SUMMARY**

In the article, the dependence of the real and imaginary parts of the impedance for yspe+5% pkr-3m composite samples, as well as the phase shift φ, on the frequency of the external electric field ($23:10^6$ hz) was studied, and the nguyist diagram corresponding to the frequency change was constructed. The studied samples were obtained by hot pressing method.

## INTRODUCTION

Ceramic materials and polymer composites prepared based on them are of interest both from a fundamental scientific point of view and from an applied perspective. One of such materials is the PKR-3M piezoceramics obtained at the Physics Research Institute of the Southern Federal University

of Russia (city of Rostov), comprising (PbTiO3-PbZrO3-PbNb2/3Zn1/3O3-PbNb2/3Mg1/3O3-MnO2). The utilization of their dispersed particles (powder) as fillers is explained by the presence of the structure-phase transition-morphotropic phase boundary (MPB) associated with extreme pyroelectric parameters and electro-physical parameter extremes.

It is worth noting that one of the informative methods determining the correlation between the composition and macroscopic properties of the composite is impedance spectroscopy, in addition to thermal activation spectroscopy. This method enables the determination and analysis of both dielectric and electrical conductivity characteristics of materials, as well as obtaining information about the transport of particles in its conductivity, describing the roles of particle volume, surface, and interfaces of phases qualitatively and quantitatively, and observing the effect of Maxwell-Wagner effects characteristic of non-conductive structures.

The presented study provides initial results of the research conducted on a composite system of various concentrations of YSPE (high-density polyethylene) and PKR-3M piezoelectric ceramic powder obtained by hot pressing method using impedance spectroscopy.

RESEARCH METHOD

The process of sample acquisition combines the following stages:

- The powders of the matrix and filler are sieved to obtain the respective dispersions;
- The components are mixed in a ceramic crucible until a homogeneous mixture is obtained;
- From this mixture, samples with a thickness of ~200μm and a diameter of 30mm are obtained by being held at a temperature of 373K and a pressure of 15MPa for 5 minutes;
- Aluminum foil contacts with a thickness of 7μm are placed on both sides of the samples;
- The obtained disc-shaped experimental elements are rapidly cooled in an "ice-water" mixture.

The acquired samples belong to the 0-3 connectivity type. The concentrations shown in the work are volume concentrations

It should be noted that the research on YSPE+PKR-3M composites was carried out in a parallel-connected resistor and capacitor system in a two-electrode system in a parallel-plate capacitor, screened at a voltage value of U=1V in the "sandwich" type measuring chamber. Measurements were performed at a frequency of 1kHz. The researched samples were placed between electrodes made of non-corrosive polarized. The temperature was controlled using the MMX-400 electronic temperature controller. Measurements were conducted using an impedance measuring device of type E7-20 with a wide frequency range.

In the experiments, the absolute value of impedance |Z|(f) of the complete complex resistance and the phase shift angle φ (f) between current and voltage were measured. Then Z!(f)=|Z|(f)cosφ(f) and Z!!(f )=|Z|(f)sinφ(f) the spectra of the real and imaginary parts of the complex impedance were calculated accordingly. The relative error of impedance measurement did not exceed 5%.

Frequency dependences of impedance of YSPE+5%PKR-3M composite samples




**Figure 1. ε′and ε′′ dependence plot of logarithm of frequency**

It can be seen from the dependence graph ε′ and ε″ of the logarithm of the frequency that each decreases gradually.

In order to choose the equivalent scheme of the studied composites and to determine the optimal values of the elements of the scheme, the Z(f) impedance spectra obtained in the experiment are given in the form of impedance godographs (Nyquist diagrams) constructed in the coordinates of its real and Z! imaginary components. It is clear that each point of the godograph curve point represents the real and imaginary component of the impedance measured at a specific frequency of the studied frequency range.

**CONCLUSION**

- ✓ Real and imaginary parts of total complex resistance Z!=|Z|cosφ and Z!=|Z|sinφ and frequency dependences of phase shift φ between current and voltage were measured for YSPE+5% PKR-3M composite samples obtained by hot pressing method.
- ✓ The characteristic relaxation time $\tau_x=5.31*10^{-3}$ s corresponding to the maximum of Z!! in the Nyquist diagram was calculated.
- ✓ It can be seen from the dependence graph ε′ and ε″ of the logarithm of the frequency that each decreases gradually.

**REFERENCE LIST**

1. E.Barsukov,J.R.Macdonal. Impedance spectroscopy: theory, experiment and application.Willey,N.Y 2005, pages 595.
2. Б.А.Беляев, Н.А.Дрокин. Исследовние электрофизических характеристик границы электрод-жидкий кристалл методом импедасной спектроскопии.ФТТ, 2015,т.57,№1,
170-175
3. Б.А.Беляев, Н.А.Дрокин, А.Н.Масленников Исследовние методом импедасной спуктроскопии допированных ионным сурфактантом жидких кристаллов.ФТТ, 2014,т.56,№7,1403-141

# SPATIAL AND ELECTRONIC STRUCTURE OF ANTIHYPERTENSIVE TRIPEPTID VAL-ALA-PRO

**ULKER AGAEVA, GULSHEN AGAEVA, NIFTALI GODJAEV**

Institute for Physical Problems, Baku State University,AZ-1148, Z.Khalilov Str.23
*gulshen@mail.ru*
BAKI, AZƏRBAYCAN

**ABSTRACT:** By molecular mechanics method and quantum chemical calculation have been investigated the conformational properties and electronic structure of antihypertensive tripeptide Val-Ala-Pro. It is shown that the spatial structure of this tripeptide can be described by set of low-energy conformations. Calculations produced the values of all dihedral angles of the backbone and side chains of the optimal conformations as well as intra- and inter-residue interactions energies. Based on theoretical calculations were obtained all energy and geometry parameters and determined the molecular models of the most stable conformation of tripeptide molecule. The electronic characteristics of the stable conformational states of this oligopeptide were determined by quantum chemical calculation.

**KEYWORDS:** ACE tripeptide inhibitor, molecular mechanics method, quantum-chemical calculation.

**3. INTRODUCTION**

For some years have been isolated many angiotensin I-converting enzyme (ACE) inhibitors from an enzymatic hydrolysate of bovine casein. The Val-Ala-Pro tripeptide, derived from bovine casein demonstrated more potent inhibitory activity than other investigated compounds [1]. Determination of the mechanism of peptide biological effect and molecular basis of their action is a one of the most actual problem of the molecular biophysics.. It is well established that the biological function of bioactive peptides is strongly related not only to their chemical structure, but also to their electronic structure at the receptor site. It

is difficult to predict the active peptide conformation, which realized in complex with the receptor, since most of small linear molecules exist in aqueous and other environments as set of low-energy conformations with comparative stability. However, the uniqueness of the amino acid sequence of the peptide may be sufficient for the formation of a stable spatial structure of the molecule. So, determination of electronic characteristics of biologically active peptides is a necessary stage in the study ligand-receptor relationships of these molecules. Fluctuations of polar groups within a peptide molecule depending on charge, electrostatic field, or conformational change play an important role in determining the spatial structure and binding properties of the molecule. The electron density distribution and dipole moment of a peptide depend on its conformational state and therefore can be useful as indicators of its geometry and conformational behavior. From this point of view, it is of particular interest to study the electronic structure of relatively small oligopeptide containing polar or charged residues in their sequence, and also capable of producing a biological effect in the free state.

**CALCULATION METHODS**

Molecular mechanics method was used to study the conformational flexibility of antihypertensive tripeptide Val-Ala-Pro. Nonbonded and electrostatic interactions, torsion energies and energies of hydrogen bond formation were described by semiempirical potential functions approximated for an implicit aqueous medium. A value of 10 was accepted for the dielectric constant , and hydrogen bonds were assumed to be weakened. Energy barrier heights for rotation around single bonds were taken from. For a stable conformation, the φ, ψ,ω, χ dihedral angles of backbone chain are located in a low energy regions: R (φ, ψ = - $180^o$-$0^o$) ,B (φ =-$180^o$-$0^o$, ψ = $0^o$-$180^o$), L (φ, ψ =$0^o$-$180^o$) and P (φ=$0^o$-$180^o$, ψ=-$180^o$-$0^o$). The conformational state of each amino acid residue is conveniently described by backbone φ, ψ,ω and side chain $\chi_n$ dihedral angles. Dihedral angles corresponding to the low-energy conformations of monopeptides were taken as the starting values during the minimization of the initial tripeptide structures. Energy minimization was carried out by the method of conjugate gradients with fixed values of covalent bond lengths and valence angles. The proline ring is assumed to be planar with a structure. For the determination of electronic charge density and dipole moments of stable conformations have been used method AM1 for the molecule. Method AM1 is a semiempirical molecular orbital technique for the quantum calculation of molecular electronic structure in computational chemistry. This method gives a correct charge distribution in peptide molecules and more or less satisfactory describes such their features, as dipole moments and total energy of molecules. The charge density has been calculated as a sum of molecular orbital densities, each the square of the orbital wave function. In this study has been investigated the charge distribution in all stable conformations of molecule, which may be related with their reactionary ability. An atomic partial charge distribution of the stable conformation of molecule allow to found the dependence of their reactionary ability with separate molecule areas.

**RESULTS AND DISCUSSION**

The antihypertensive tripeptide Val-Ala-Pro sequence contains three residues with a hydrophobe side chains. When compiling the initial variants of the tripeptide Val-Ala-Pro, the values of the dihedral angles were taken from the B, R, and L regions. The dihedral angles of the side chains (χ1, χ2) of all residues were varied taking into account the values of $60^0$, $180^0$ and $-60^0$. The conformational state of a proline residue, which has a rigidly fixed N-Cα bond in the main chain and no unfolded side chain, is determined only by the angle ψ. For the angle ψ of the Pro, the values of $130^0$ were taken. In addition, the proline residue, due to its structure, limits the conformational possibilities of the preceding residue, in which the dihedral angle ψ can only take positive values (ψ = $0^0$ -$180^0$). Since only one B form of the main chain is possible for the residue preceding proline, the initial variants of this tripeptide conformers could have only two forms BBB and RBB. Due to its steric structure, the proline residue cannot realize the L-form. Taking into account the different orientations of the side chains, based on the low-energy conformations of the corresponding monopeptides. Fig.1(a) shows the atomic models of lowest-energy conformation of tripeptide. The values of the dihedral angles of the energetically preferred conformations of the oligopeptide are presented in Table1. The electronic structure of the oligopeptide molecule is the key to a productive peptide-receptor interaction. The results of quantum chemical calculation show that in lowest energy conformation of the peptide the total dipole moment totally similar one from second conformation.



a b

Figure. The energy preferrable conformation of tripeptide Val-Ala-Pro a) and charge density of its conformation.

Table 1. The values of dihedral angles of the two lowest-energy conformations of tripeptide Val-Ala-Pro.

| AMINO ACID | CONFORMATION | |
|---|---|---|
| | $B_2BB$ | $R_2BB$ |
| Dihedral angles | φ, ψ, ω, $\chi_1$ ,$\chi_2$, $\chi_3$, $\chi_4$, $\chi_5$ | φ, ψ, ω, $\chi_1$ ,$\chi_2$, $\chi_3$,$\chi_4$, $\chi_5$ |
| Val | -167,142,180,178,185,176 | -162.-67,181,177,182,178 |
| Ala | -110,154,162,179 | -116,154,162,179 |
| Pro | -60, 98, 180 | -60, 102, 180 |
| $E_{rel}$ (kcal/mol) | 0 | 0,6 |

Results representing the distribution of electrostatic energy derived from quantum chemical calculations show that different parts atom groups have different amounts of charge density, so it could be said to be difficult to represent the Val carboxyl group as having some negative charge. The electronic characteristics of energetically preferred conformations of Val-Ala-Pro are presented on the Table 2. The electron density of charge and a electrostatic potential of both low-energy conformations of oligopeptide are showed in Fig.1 (b). The electronic structure of energy preferable conformations of oligopeptide indicates a similar charge distribution around the C-terminal peptide group and imply that their binding to the receptor site could be similar.

Table 2. The electronic characteristics of energetically preferred conformations of antihypertensive tripeptide Val-Ala-Pro.

| Conformation | Beta-structure |
|---|---|
| Total energy(kcal/mol) | -89477.2 |
| Binding energy(kcal/mol) | -4051.4 |
| Isolated Atomic Energy (kcal/mol) | -85425.8 |
| Electronic energy (kcal/mol) | -628140.6 |
| Core-core interaction (kcal/mol) | 538663.5 |
| Dipole moment (Debay) | 37.1 |

## 5.CONCLUSIONS

Our conformational analysis of antihypertensive tripeptide Val-Ala-Pro demonstrated that this molecule has a limited set of the stable structures that are characterized by extended and semi-folded backbone forms. The theoretical calculations helped reveal a number of special features of spatial arrangement and electronic characteristics of this drug-based tripeptide, which may be useful as a base for a directed search and synthesis of their more effective structural analogs.

**References**

1. Susumu Maruyama, Hajime Mitachi, Hideoki Tanaka, Noboru Tomizuka &Hideo Suzuki (2014), Studies on the Active Site and Antihypertensive Activity of Angiotensin I-Converting Enzyme Inhibitors Derived from Casein. Agricultural and Biological Chemistry, 51(6), 1581-1586, DOI: 10.1080/00021369.1987.10868244

# QUANTUM CHEMICAL CALCULATION OF THE ALZHEIMER'S BETA-AMYLOID (25-35) PEPTIDE

**G.Z.NAJAFOVA [1], G.A.AGAEVA [2]**
1-French-Azerbaijan University – (UFAZ) under Azerbaijan State Oil and Industry University, Baku, Azerbaijan
2-Institute for Physical Problems, Baku State University, AZ-1148, Baku, Azerbaija
*gulyaz.najafova@ufaz.az*
BAKI, AZƏRBAYCAN

**ABSTRACT**

The electronic structure of the beta-amyloid (25-35) peptide has been investigated by quantum chemical calculation method. The electronic characteristics of preferred conformations of this molecule were revealed. It is showed a correct charge distribution in peptide molecules and satisfactory describes such their features, as dipole moments and total energy of molecule. In this study was investigated how the charge distribution of a molecule may be related with their reactionary ability. An atomic partial charge distribution of the stable conformation of molecule allow to predict the relationships of their reactionary ability with separate receptor areas.

**KEYWORDS: beta-amyloid (25-35) peptide, quantum chemical calculation method, electronic structure, dipole moment.**

## 1. INTRODUCTION

For understanding of the mechanism of action of pharmacologically active peptide is necessary knowledge of their preferred conformation and electronic structure. The amyloid beta-peptide Aβ (1-40/42) is the major protein component of brain senile plaques in Alzheimer's disease [1]. A particular fragment, Aβ (25-35) (with sequence GSNKGAIIGLM) is considered to be the functional domain of Aβ, responsible for its neurotoxic properties [2]. The Aβ (25-35) peptide possesses many of the characteristics of the full-length Aβ (1-40/42), including its amphiphilic nature and the tendency to aggregate. It is indicating that Ab (25–35) peptide in non-aggregated form, i.e., predominantly monomeric, is strongly neurotoxic, having the ability to enter within the cells, determining mitochondrial damage with an evident trigger of apoptotic signals [2].

In this work the electronic structure of the Ab (25–35) peptide, was studied by AM1 semi-empirical method for the quantum chemical calculation. The biological functions of this peptide molecule is undoubtedly connected to its structural and electron structure, that necessary for strong interaction with other molecule. It is suggesting that its C-terminal region determine of selectivity for given receptor [3]. The major aim of the present work is the investigation of electron characteristics of preferred conformations of undecapeptide Ab (25-35), with the purpose of getting insight into reactionary abilities that determine its different interactions. The charge distribution and dipole moments of peptide conformations was obtained by means of semiempirical AM1quantum-chemical method.

## 2. METHOD

AM1, is a semi-empirical method for the quantum calculation of molecular electronic structure in computational chemistry. It is based on the Neglect of Differential Diatomic Overlap integral approximation. Specifically, it is a generalization of the modified neglect of differential diatomic overlap approximation. AM1 was developed by Michael Dewar and co-workers and published in 1985 [4,5]. AM1 is an attempt to improve the MNDO model by reducing the repulsion of atoms at close separation distances. The atomic core terms in the MNDO equations were modified through the addition of off-center attractive and repulsive Gaussian functions. The results of AM1 calculations are sometimes used as the starting points for parameterizations of forcefields in molecular modelling. Method AM1 gives a correct charge distribution in peptide molecules and more or less satisfactory describes such their features, as dipole moments and total energy of molecules. We calculate charge density as a sum of molecular orbital densities, each the square of the orbital wave function. In this study we investigate how the charge distribution of a molecule may be related with their reactionary ability. An atomic partial charge distribution of the stable conformation of molecules allow to predict the relationships of their reactionary ability with separate molecule areas. Here we will only be considering the charge distribution itself, leaving aside for the moment a discussion of intramolecular electrostatic and polarization energies and their relation to intermolecular interaction energies.

## 3. RESULTS AND DISCUSSION

The main results of the structural variants from the undecapeptide (25-35), in polar solution showed to be a family of conformations with relative energies in the range of 0-10 kcal/mol. The undecapeptide global conformation forms a long α-helical segment towards the C-terminal end. Thus, the global conformation of the undecapeptide is based on the global α-helical conformation of the C-terminal pentapeptide. The preferred spatial structure of Abeta amylloid (25-35) peptide are presented in Figure1, hydrogen bond is shown dashed line, peptide backbone is shown thick line (a).

| Conformation | Alpha-helix structure |
|---|---|
| Total energy (kcal/mol) | -328730.2 |
| Binding energy (kcal/mol) | -14647.9 |
| Isolated Atomic Energy (kcal/mol) | -314092.2 |
| Electronic energy (kcal/mol) | -5036778.8 |
| Core-core interaction (kcal/mol) | 4708048.6 |
| Dipole moment (Debay) | 39.4 |

***Table 1.*** *The electronic characteristics of energetically preferred conformations of Aβ (25-35) peptide.*




**Fig.1.** Preferred spatial structure of the beta-amyloid peptide 25- a) and charge distribution of preferred conformation of the beta-amyloid peptide 25-35 b).

The results of quantum chemical calculation show that in lowest energy conformation of the undecapeptide (25-35) the total dipole moment of is 39.4 D. The electronic characteristics of energetically preferred conformations of Aβ (25-35) peptide are presented in Table 1. The charge distributions of undecapeptide in the global alpha-helical conformation are represented in the Fig 1(b). However, the results show that the most positive part is at the surface immediately opposite to the C-terminal carboxyl group, so this dipole moment is still evident with this approach. An intramolecular alpha-helix formation may occur as a natural consequence of the conformational space by the Aβ (25-35) monomer. Once formed, the intermolecular interactions among these helices containing Aβ monomers could lead to peptide oligomerization followed by a conformational reorganization to form the extended β-sheets that compose the mature amyloid fibril. The preferred spatial structure and charge distribution of the undecapeptide in the global conformation are represented in the Fig 1(a, b).

**CONCLUSIONS**

Our electronic structure analysis indicated all values of electronic characterictics an *α*-helical conformation of the Aβ (25-35) peptide in polar solution. The *α*-helical conformation may constitute the structural basis of the intermediate in A□-amyloid fibril assembly. While the mechanism of toxicity of Aβ (25-35) is still unclear, its native folded structure in aqueous environment is expected to play a role in the aggregation cascade. The above calculation shows interesting electronic characteristics of preferred conformation of peptide which might be important for its biological activity.

**REFERENCES**

**1.** L. N. Zhao, L. Lu, L. Y. Chew, Y. Mu,Alzheimer's disease-A panorama glimpse, International Journal of Molecular Sciences, 15 (2014) 12631-12650.

**2.** M. E. Clementi, S. Marini, M. Coletta, F. Orsini, B.Giardina, F. Misiti, A-beta(31-35) and A-beta(25-35) fragments of amyloid beta-protein induce cellular death through apoptotic signals: Role of the redox state of methionine-35. FEBS Lett, 579 (2005) 2913-2918.

**3.** T. Kohno, K. Kobayashi, T. Maeda, K. Sato, A. Takashima,Three-dimensional structures of the amyloid □peptide(25-35) in membrane-mimicking environment, Biochemistry, 35 (1996) 16094-16104.

**4.** Dewar, Michael J. S.; Zoebisch, Eve G.; Healy, Eamonn F.; Stewart, James J. P. (1985). "Development and use of quantum mechanical molecular models. 76. AM1: A new general purpose quantum mechanical molecular model". Journal of the American Chemical Society. 107 (13): 3902

**5.** Dewar, Michael J.S.; Jie, Caoxian; Yu, Jianguo (1993). "SAM1; the first of a new series of general purpose quantum mechanical molecular models". Tetrahedron. 49 (23): 5003.

# KİÇİK PARAMETR VƏ ORTALAMA METODLARININ GÖY MEXANİKASI MƏSƏLƏLƏRİNDƏ TƏTBİQİ

**RUSLAN MƏMMƏDOV AZAD MƏMMƏDLI ÜLVÜ VƏLIYEV**

Naxçıvan Dövlət Universiteti Batabat Astrofizika Rəsədxanası Batabat Astrofizika Rəsədxanası Batabat Astrofizika Rəsədxanası *azad_memmedli@yahoo.com veliyev_ulvu@mail.ru ruslan_rtm@yahoo.com* Naxçıvan, Azərbaycan Naxçıvan, Azərbaycan Naxçıvan, Azərbaycan

**XÜLASƏ**

Müasir göy mexanikası məsələlərində müxtəlif asimptotik metodlar tətbiq olunur. Bu məsələlərin həllində kiçik parametr və ortalama metodu xüsusi rol oynayır. Bu məqalə göy mexanikasında diferensial tənliklərin inteqrallanması metodlarına aid işlərin xülasəsinə: kiçik parametr metoduna dair klassik nəticələrin qısa şərhinə və ortalama ideyasının özünün sonrakı inkişafına həsr olunub.

Məqalədə qarşıya qoyulmuş məsələni həll etmək üçün istifadə edilmiş metod və materiallar göstərilir. Aparılmış elmi təcrübələr nəticəsində əldə edilən cədvəllər, blok-sxemlər, qrafiklər göstərilir. Ortalama metodlarından istifadənin səbəbləri kifayət qədər ağlabatan olsa da, bu metodların müxtəlif modifikasiyaları daha ciddi araşdırma tələb edir.

**AÇAR SÖZLƏR: Göy mexanikası-l, planet-2, ortalama metodu-3**

**GIRIŞ**

Göy mexanikasının bir çox məsələlərinin həllində analitik və keyfiyyət metodları tətbiq olunur. Kiçik parametr metodu çox vaxt böyük planetlərin, onların peyklərinin, həmçinin planetlərin süni peyklərinin hərəkətləri haqqında məsələləri həll edərkən analitik (yaxud yarımanalitik) metod kimi istifadə olunur. Bu məsələlərin həllində ortalama metodu da xüsusi rol oynayır. Ortalama məsələsi əksər hallarda inteqrallanan olur və daha mürəkkəb hallarda göy cisimlərinin hərəkət nəzəriyyəsini qurarkən aralıq orbit kimi seçilə bilər. Bundan əlavə, ortalama məsələlərinin keyfiyyət tətbiqi real obyektlərin təkamülünü müəyyən edən yeni sinif orbitləri aşkar etməyə imkan verir.

Tam şəkildə formalaşmış analitik metodlar sırasında, şübhəsiz ki, kiçik parametr metodunun adı birinci çəkilməlidir. Metodun özünün Ptolomeyin "Almagest" əsərindən başlayaraq lap çoxdan göy mexanikasında tətbiq olunmasına baxmayaraq, onun tamamlanmış forması A. Puankareyə və A.M. Lyapunova məxsusdur. Burada "tamamlanmış forma" sözü təsadüfən işlədilməmişdir. Bu metod Puankarenin və Lyapunovun işlərində özünün təkmil səviyyəsinə çatdırılmışdır. Belə ki, metodun tətbiqi ilə bağlı işlərin zənginliyi onun sonrakı inkişafına aid işlərin, demək olar ki, olmaması ilə kəskin ziddiyət təşkil edir.

**TƏDQIQAT METODU**

Qarşıya qoyulmuş məsələni həll etmək üçün istifadə edilmiş metod və materiallar göstərilir. Aparılmış elmi təcrübələr nəticəsində əldə edilən cədvəllər, blok-sxemlər, qrafiklər göstərilir. Bu fəsildə tədqiqat işinin səmərəliliyi açıqlanmır, ancaq aparılmış təcrübə və nəticəsi açıqlanır. Əvvəlcə kiçik parametr metoduna aid klassik nəticələrin qısa şərhini verək.

$$\dot{x} = \sum_{n=0}^{\infty} \mu^n f_n(x,t) \quad (1)$$

diferensial tənliklər sisteminə baxaq. Burada $t$ – zaman, $\mu$ – kiçik skalyar parametr, $x$ – faza koordinatlarının vektorudur. $f_n$ vektor-funksiyasının $x$ dəyişənlərinin hər hansı $G$ oblastında analitik və $t$-nin bütün həqiqi qiymətlərində kəsilməz olduğu fərz edilir. Belə $(x,t)$-lər üçün (1) sırası $\mu$-nün hər hansı $|\mu| < \mu_0$ dairəsindən olan bütün qiymətlərində yığılandır. Onda, istənilən başlanğıc verilənlər və parametr üçün $(x^0 \in G. |\mu| < \mu)$ elə $T > 0$ tapılacaqdır ki, (1) sisteminin uyğun həlli

$$x = \sum_{n=0}^{\infty} \mu^n x_n(t) \quad (2)$$

yığılan sırası ilə veriləcəkdir.

Göy mexanikasının tənlikləri üçün (2) ayrılışının yığılma oblastının təyini K.V. Xolşevnikovun işində irəli sürülmüşdür (Xolşevnikovun, 1971). Standart formalı sistemlər üçün (yəni $f_0 = 0$ olduqda)

$$T \le c/|\mu| \quad (3)$$

oblastında, tez və yavaş dəyişənlər daxil olan sistemlər üçün isə

$$T \le c/\sqrt{|\mu|} \quad (4)$$

oblastında yığılma təmin olunur. Hər iki qiymətləndirmənin doğru olması sadə misallar gətirməklə isbat edilir. (4) qiymətləndirilməsinin dəqiqliyinə aid misalları yalnız sarsıntının ranqı haqqında Puankare teoreminin ödənilmədiyi sistemlər üçün qurmaq mümkün olur . Böyük ehtimalla, $N$-planet məsələsinin tənlikləri və göy mexanikasının digər tənlikləri üçün yığılma (3) oblastında baş verir. Lakin, aydındır ki, (2) sirası daha geniş oblastda yalnız xüsusi hallarda yığıla bilər.

Digər tədqiqatlar ikinci və üçüncü tərtib sarsıntıların (yəni həllin ayrılışındakı $\mu^2$ və $\mu^3$-nun əmsallarının) strukturlarına aiddir. V. Markellos və digər müəlliflərin məqaləsində böyük yarımoxun ikinci tərtib əsri sarsıntısının olmaması haqqında Puasson teoreminin qismən ümumiləşməsi alınmış və üçüncü tərtib əsri hədlərin varlığı təsdiq olunmuşdur (Markellos, 1976). L. Duriezin işində göstərilmişdir ki, sistem kanonik formasını itirdikdə Puasson teoremi ümumi halda heliosentrik koordinatlarda artıq doğru olmur (Duriez, 1978). Teoremin doğru qalması üçün hər bir planetin dəyişən hərəkətinə, adətən praktikada edildiyi kimi, həmin planetin özünə məxsus $M_\odot + m$ kütləsinə görə deyil, eyni bir $M_\odot$ kütləsinin cəzbetmə mərkəzinə nəzərən baxmaq lazımdır. Bununla belə, aydındır ki, $\mu$-nün qüvvətlərinə görə ($M_\odot + m$)-in ayrılışından sonra ikinci tərtib əsri hədd artıq faktiki olaraq üçüncü tərtibə malik olacaqdır.

Məntiqə uyğun şəkildə seçilmiş zaman müddəti üçün sarsıdıcı təsirin onun orta qiyməti ilə əvəz olunması ideyasına əsaslanan ortalama metodu haqqında fikirlər hələ çox qədimdən irəli sürülmüşdür. Bu ideyanın formalaşması prosesi çox da asan olmadı və XIX əsrin sonunda başa çatdı. Müasir təsəvvürlərə görə ortalama dedikdə tez dəyişənlərə görə dövrilik və ya sanki dövrilik şərtini ödəyən və sistemi yalnız yavaş (və ya heç olmasa qeyd olunmuş rezonans ətrafında yavaş) dəyişənlərin daxil olduğu şəklə gətirən dəyişənlərin ortalanma əvəzləməsi başa düşülür. Əlavə şərtlərdən (məsələn, kanonik formanın saxlanması) və dəyişənlərin əvəz olunmasının yerinə yetirilməsi üsullarından asılı olaraq Delone, Hill, Caypel, Krılov – Boqolyubov, Kolmoqorov – Arnold – Mozer, Li və digər müxtəlif metodlar tətbiq edilir. Bu metodlardan ən mühümlərini araşdırmazdan əvvəl hələlik, ortalama ideyasının özünün sonrakı inkişafına baxaq. XX əsrin əvvəllərində məlum oldu ki, ümumi şəkildə olan sistemlər üçün dəyişənlərin ortalanma əvəzləməsi zamanın bütün qiymətləri üçün başlanğıc verilənlər fəzasına daxil olan heç bir kürədə müntəzəm yığılmayan sıralarla verilir. Bununla belə, indiyədək astronomiya və mexanikaya aid olan ədəbiyyatlarda sıraların dağılması haqqında fikirlərə rast gəlinir. Geniş mənada başa düşülən ortalama metodu, yuxarıda qeyd olunduğu kimi kifayət qədər universallığa malikdir.

Sonralar N.M. Krılov və N.N. Boqolyubov tərəfindən ortalama metodu sıralarının asimptotik xarakteri müəyyən olundu. Nəhayət, A.N. Kolmoqorov, V.İ. Arnold və Y. Mozer tərəfindən başlanğıc verilənlər fəzasının müsbət ölçülü çoxluğunda zamanın bütün qiymətləri üçün qeyri-müntəzəm yığılmanın şərtləri alındı (Qrebenikov, 1978).

W. Sarlet tərəfindən yazılmış məqalədə göstərilmişdir ki, bir neçə zaman şkalası metodu ortalama metoduna gətirilir (Sarlet, 1978). E.A. Qrebenikov və Y.A. Ryabovun qeydlərində ortalama metodunun əsasında Günəş sisteminin rezonans və qeyri-rezonans vəziyyətinin növbələşməsi haqqında hipotez irəli sürülmüşdür (Qrebenikov, 1978). Bir tezdəyişən halı üçün (3) oblastında ortalama prosesinin yığılması K.V. Xolşevnikov tərəfindən isbat olunmuşdur (Xolşevnikov, 1971).

**NƏTICƏ**

Geniş mənada başa düşülən ortalama metodu, yuxarıda qeyd olunduğu kimi kifayət qədər universallığa malikdir. Q. Alfanov və V.N. Qoryaçev tərəfindən təkmilləşdirilmiş əsri sarsıntıların təyini üçün Qauss metodu ortalama metodunun *N*-planet məsələsinə birbaşa tətbiqindən ibarətdir. Y.V. Obrubov öz işində bu metodu Yer orbitini kəsən meteor axınının orbitləri halına aid etmişdir. Müəllif bu halda da metodun tətbiq olunması lehinə evristik düşüncələrini irəli sürür. Bu fikirlərin kifayət qədər məntiqə uyğun olmasına baxmayaraq məsələnin daha ciddi tədqiqinə ehtiyac vardır.

**ƏDƏBIYYAT SIYAHISI**


1. Гребеников Е.А., Рябов Ю.А. (1979). Конструктивные методы анализа нелинейных систем. М.: «Наука», 480 с.
2. Холшевников К.В. Сходимость в методе малого параметра // Наблюдение искусственных небесных тел, 1971, № 62, с. 153-168.
3. Duriez L. Theoreme de Poisson en variables heliocentriques // Astronomy and Astrophysics, 1978, 68, No 1 – 2, p. 99-216.
4. Markellos V.V., Goudas C., Katsiaris G., Georgantopoulos G. Higher-order stability of the restricted problem and the solar system // Astrophysics and Space Sciences, 1976, 45, No 1, p.99-103.
5. Sarlet W. On a common derivation of the averaging method and the two-timescale method // Celestial Mechanics, 1978, 17, No 3, p. 299-311.

# GAMMA RADIASIYASININ EPOKSI-DIAN QƏTRANI VƏ NANO - VƏ MIKRO ÖLÇÜLÜ AL(OH)$_3$ ƏSASLI YANĞINA DAVAMLI KOMPOZITLƏRIN ELEKTROFIZIKI XASSƏLƏRİNƏ TƏSIRI

**M.N.Bayramov[1], Z.A.Saadova[2], V.M. Səfərova[1]**

[1]ARETN Radiasiya Problemləri İnstitutu, "Polimer və elektroaktiv materialların radiasiya fizikası" laboratoröyası. AZ 1143, Bakı, Azərbaycan, B. Vahabzadə küç., 9.
[2] ARETN Bakı Dövlət Universiteti,Fizika fakultəsi, "Maddə quruluşu" kafedrası. AZ1148, Z. Xəlilov küç., 23.
m.bayramov51@mail.ru
BAKI Ş.,AZƏRBAYCAN

**XÜLASƏ**

Tədqiqat işində qamma-şüalanmanın epoksi - dian qətranı ED-20 və nano - və mikroölçülü alüminium hidroksidlərdən ibarət yanğına qarşı davamlı yeni, ekoloji cəhətdən təhlükəsiz kompozit nümunələri hazırlanmış, onların elektrofiziki xassələrinə qamma-şüalanmanın təsiri araşdırılmışdır. Hal-hazırda radiasiya materialşünaslığında perspektivli sahələrdən biri də qamma-şüalanmaya davamlı epoksi - dian qatranı əsasında yanğına davamlı polimer kompozitlərin yaradılmasıdır. Bu kompozitlərin yanğın riskini azaltmaq üçün onların tərkibinə toksik olmayan alov gecikdiriciləri – məsələn, alüminium hidroksid Al(OH)$_3$ əlavə olunur. Təsbit edilmişdir ki, toksiki halogenləşdirilmiş və aromatik alov gecikdiricilərindən fərqli olaraq Al(OH)$_3$ mikro- və nanohissəcikləri epoksid oligomerlər əsasında hazırlanan polimer kompozitlərin istifadəsini ekoloji tələblərlə məhdudlaşdırmır. Əksinə, nisbətən ucuz olan Al(OH)$_3$ alov gecikdiriciləri epoksi - dian qatranı əsasında polimer kompozitlərin istiliyə davamlılığının artmasına, alışqanlığının və tüstü əmələ gətirmə qabiliyyətinin azalmasına səbəb olur. Epoksi-dian qətrani ED-20 və Al(OH)$_3$ əsasında hazırlanan nano - və mikro polimer kompozitlərin elektrofiziki parametrləri qamma-şüalanmadan əvvəl və 100 kQr və 600kQr udulma dozalarında tədqiq edilmişdir.Ölçmələrin nəticələrini müqayisə etmək üçün hər iki kompozitdə Al(OH)$_3$-in miqdarı 5 çəki faizi olmuşdur. Nanokompozit nümunələri üçün ε' qiymətlərinin artması, xüsusi həcmi elektrik müqavimətinin qiymətlərinin kiçilməsi nano-Al(OH)$_3$-in kimyəvi təbiəti ilə əlaqəlidir, bu da radioliz zamanı epoksi matrisin tikilməsi baş versə də, yük daşıyıcıların əlavə bərpası mənbəyi kimi nanokompozitlərin polyarlılığını artırır.Tədqiq olunan nümunələrdə $\lg\rho_v = f(T)$ asılılığının dəyişmə xarakteri eynidir və sıçrayışlı keçiricilik üçün tipikdir. Tədqiq olunan kompozit nümunələrin elektrofiziki xassələri 600 kQr udulma dozasına qədər qamma-şüalar ilə tənzimlənə bilər.

**ABSTRACT**: In the research work, samples of new, environmentally safe, fire-resistant composites consisting of epoxy - dian resin ED-20 and nano - and micro-dimensional aluminum hydroxides of gamma radiation were developed, and the effect of gamma radiation on their electrophysical properties were investigated. Currently, one of the promising areas in radiation materials science is the creation of fire-resistant polymer composites based on gamma - radiation-resistant epoxy-dian resin. To reduce the risk of fire of these composites, non – toxic flame retardants are added to their composition-for example, aluminum hydroxide Al(OH)$_3$. It has been established that unlike toxic halogenated and aromatic flame retardants, Al(OH)$_3$ micro - and nanoparticles do not limit the use of polymer composites made on the basis of epoxy oligomers to environmental requirements. On the contrary, the relatively inexpensive Al(OH)$_3$ flame retardants lead to an increase in the heat resistance of polymer composites based on epoxy - dian resin, a decrease in their flammability and ability to form smoke. Electrophysical parameters of nano-and micro-polymer composites based on epoxy - dian resin ED-20 and Al(OH)$_3$ were studied before gamma radiation and at absorption doses of 100kGy and 600kGy.To compare the results of the measurements, the amount of Al(OH)$_3$ in both Composites was 5 percent. The increase in ε' prices for nanocomposite samples, the reduction in specific volume electrical resistance prices are related to the chemical nature of nano-Al(OH)$_3$, which increases the polyarity of nanocomposites as a source of additional regeneration of charge carriers, even if the construction of the epoxy Matrix occurs during radiolysis.In the studied

samples, the nature of the change in the dependence of $lgp_v = f$ (T) is the same and is typical for breakthrough conductivity. The electrophysical properties of the studied composite samples can be adjusted by gamma - rays up to an absorption dose of 600 kGy.

**2.AÇAR SÖZLƏR:** epoksi-dian qətrani, epoksid oliqomerlər, polimer kompozitlər, alov gecikdiricilər, nano-və mikroölçülü alüminim hidroksid, qamma-şüalanma, udulma dozasi, elektrofiziki xassələr.

**Keywords**. epoxy-dian resin, epoxy oligomers, polymer composites, flame retardants, nano-and micro-dimensional aluminum hydroxide, gamma radiation, absorption dose, electrophysical properties.

**3. GIRIŞ**

Son dövrlərdə elektrotexnika, maşınqayırma, tikinti sənayesi və s. sahələrdə , epoksi dian oliqomerləri əsasında polimer kompozit materialları geniş tədbiq olunur. Belə ki bu kompozitlərin texnoloji, fiziki-mexaniki, termofiziki və fiziki-kimyəvi xüsusiyyətlərinin geniş çeşidi və onların sintezi üçün nisbətən əlverişli xammal bazasının olmasına əsaslanır. [N.Ş.Əliyev,2018; В.И. Иржак, 2021; Ш.М.Маммадов,2015; A.M. Hashimov, 2019]. Epoksi oligomerlər tikinti strukturlarının təmiri və möhkəmləndirilməsi üçün kömür, bazalt və şüşə liflərlə möhkəmləndirilmiş müxtəlif kimyəvi davamlı örtüklər, polimer məhlullar və polimer betonların istehsalında bağlayıcı kimi istifadə olunur, Son dövrlərdə bütün sənaye sahələrində - mülki avadanlıqlar, sənaye obyektləri və tibbdə tətbiq olunan polimer materiallara yanğına davamlılığı üçün ciddi tələblər qoyulur, çünki üzvi kimyəvi quruluşlarına görə polimer materiallar əsasən yanıcıdırlar.[ Зарипов Ильназ Ильгизович, 2022; Ю.А. Амелькович**,** 2021; А. С. Мостовой, 2014].

Yanğına qarşı davamlılıq tələbləri olan bir çox sahələrdə (ictimai nəqliyyatın daxili hissələri, elektrik və elektron cihazları və s.), epoksid əsaslı kompozitlərin yanğın riskini azaltmaq üçün onlara alov gecikdiricilərin (AG) əlavə edilməsi lazımdır. Beləliklə, epoksi əsaslı kompozitlərin tətbiqində nanoölçülü AG-lərin, effektivliyi çox vacib rol oynayır. Yüksək temperaturun təsiri altında metal hidroksidlər suyun sərbəst buraxılması ilə parçalanır. Parçalanma reaksiyası endotermikdir və substratın alovlanma nöqtəsindən aşağı temperaturlara qədər soyumasına səbəb olur. Suyun əmələ gəlməsi parçalanma zamanı yayılan yanan qazların seyreltilməsinə kömək edir, oksigenin təsirini zəiflədir və yanma sürətini azaldır. Hidroksidlərin effektivliyi polimerdəki tərkibi ilə birbaşa mütənasibdir [21].

İşin əsas məqsədi epoksi-dian qətranı (ED-20) və alov gecikdirici kimi mikro- və nanoölçülü alüminium hidroksid $Al(OH)_3$ hissəciklərindən ibarət yanğına qarşı davamlı yeni ekoloji cəhətdən təhlükəsiz ED-20/ nano-$Al(OH)_3$ kompozit nümunələrinin alınması, onların elektrofiziki xassələrinə ($\varepsilon$, tg$\delta$ və $\rho_v$) qamma şüalanmanın təsirini tətqiq etməkdir.

Bu məqsədlə ED-20 epoksi-dian qətranı, MTHFA anhidridi, PEPA plastikləşdiricisi və UP-606/2 sürətləndirici olan polimer matrisaya müxtəlif çəki faizi miqdarında doldurucu - nano- və mikro ölçülü $Al(OH)_3$ tozu daxil edilir, bircins sistem alınana qədər qarışdırılır və alınan qarışıq pilləli rejimdə 323-413K temperatur intervalında bərkidilir. Nümunələrin bir qismi müxtəlif dozalarda qamma şüalarla işlənmişdir. İlkin və qamma şüalarla işlənmiş kompozit nümunələrin dəyişən elektrik sahəsində elektrofiziki parametrlərinin ($\varepsilon$, tg$\delta$, $\rho_v$) temperatur –doza asılılıqları tədqiq edilmişdir.

**TƏDQIQAT METODU**

Tədqiqatın indiki mərhələsində epoksi-dian qətranı (ED-20) və alov gecikdirici kimi nanoölçülü (80mkm) və mikroölçülü (200mkm) $Al(OH)_3$ hissəciklərindən ibarət yanğına qarşı davamlı yeni, ekoloji cəhətdən təhlükəsiz ED-20/nano- $Al(OH)_3$ və ED-20/$Al(OH)_3$ kompozit nümunələri alınmış, onların elektrofiziki xassələrinə: dielektrik nüfuzluğunun həqiqi hissəsinə ($\varepsilon'$), dielektrik itki bucağının tangensinə (tg$\delta$), xüsusi həcmli elektrik müqavimətinə ($\rho_v$) qamma şüalanmanın təsiri tətqiq edilmişdir.

Tədqiq etdiyimiz kompozit nümunələri ED-20 epoksi-dian qətranı və $Al(OH)_3$ dolduruculardından hazırlanmışdır. Kompozit nümunələrində dolduruculaların çəki miqdarı 5%-dir. Polimer epoksi matrisa stexiometrik miqdarda götürülən ED-20 markalı epoksid-dian qətranından (ГОСТ 10587-84), bərkidicidən- metiltetrahidroftal anhidridi MTHFA (ТУ 38.103149-85), sürətləndiricidən- УП-606/2 (ТУ6-00209817.035-96), plastifikatordan- Laprol 503 (ТУ 2226-009-10488057-94) ibarət maye

homogen qarışıqdan hazırlanır. Sınaq nümunələrini hazırlamaq üçün (323-333)K temperaturda epoksid matrisaya ayrı-ayrılıqda, müvafiq miqdarda AH-20 markalı mikroölçülü alüminium hidroksid tozu (CAS 21645-51-2, Çin) və H-NT-25 markalı nanoölçülü alüminium hidroksid tozu (CAS 21645-51-2, Çin) daxil edilir və bircinsli sistem alınana qədər qarışdırılır. Maye halında olan müvafiq qarışıqlar metal formalara tökülür. Diametri 54 mm və qalınlığı 900-1000 mkm olan nümunələr (353-453)K temperaturda pilləli rejimdə mufel peçində bərkidilir.

ED-20/Al(OH)$_3$ kompozitləri $^{60}$Co şüalanma mənbəyinə malik MRX-γ-25 qurğusuinda otaq temperaturunda 100 kQr və 600 kQr udulma dozasına qədər γ-şüaları ilə şüalanmışdır. Udulan dozanın gücü 1,45 Qr/san.




Şəkil 1. Şüalahmamış D=0 (a), D=100kQr (b) və D=600kQr (c) udulma dozalarında γ-şüalarla şüalandırılmış ED-20, ED-20/Al(OH)$_3$ və ED-20/nano-Al(OH)$_3$ kompozit nümunələrinin dielektrik nüfuzluqlarının həqiqi hissəsinin temperatur asılılıqları ε'=$f$(T), doldurucunun miqdarı 5 kütlə. %, ν=1kHz.

Şəkil 1a -dan göründüyü kimi, şüalanmamış (D=0) nümunələri üçün temperaturun 408K-nə qədər artması zamanı dielektrik nüfuzluqlarının həqiqi hissəsinin ε' qiymətrlərinin çox zəif dəyişməsi baş verir, yəni ε'praktiki oaraq sabit qalır. Temperaturun sonrakı artımı ilə temperatur şkalasının sonuna qədər ε' qiymətrlərinin biriinci hissə ilə müqayisədə nisbətən kəskin artması müşahidə olunur. Bu hissədə nümunələrin dispersiyasının dərinliyini göstərən

$\Delta\varepsilon^{l} = \varepsilon^{l}_{473} - \varepsilon^{l}_{408}$ kəmiyyəti uyğun olaraq ED-20 kompoziti üçün 2.69, ED-20/nano-Al(OH)$_3$ kompoziti üçün 1.85 və ED - 20/ Al(OH)$_3$ kompoziti üçün isə 1.75 təşkil edir. Bütün nümunələr üçün ε'=$f$(T) asılılıqların gedişi eynidir.

Şəkil 1b-də D=100kQr udulma dozasında γ-şüalarla şüalandırılmış kompozit nümunələrinin ε'=$f$(T) asılılığından görünür ki, ε' qiymətrləri artaraq T=303K temperaturda uyğun olaraq 12.34, 9.46 və 7.39 təşkil edir, yəni 1.41, 1,33 və 1,15 dəfə artmışdır.$\Delta\varepsilon^{l}_{473-403}$

kəmiyyəti isə bu nümunələr üçün 3.94, 2.85 və 3.08 olmuşdur. Qeyd edək ki, D=100kQr şüalanmadan sonra ED-20/nano-Al(OH)$_3$ və ED-20/Al(OH)$_3$ kompozit nümunələrinin dielektrik nüfuzluqlarının həqiqi hissəsinin aşağı temperaturlarda artma sürəti ED-20 nümunəsi ilə müqayisədə daha böyükdür.

Udulma dozasının D=600kQr qiymətinə qədər artması (şəkil 1c) ED – 20 və ED - 20/ Al(OH)$_3$ kompozit nümunələrinin ε' qiymətləri (T=303K temperaturda) D=100kQr doza ilə müqayisədə uyğun olaraq 1,11 və 1,31 dəfə azaldığı halda ED-20/nano-Al(OH)$_3$ nümunələri üçün bu parametr bir qədər (1,21 dəfə) artmışdır.

Kompozitlərin ε' qiymətrlərinin şüalanmadan sonra artması nümunələrinin qadağan olunmuş zonasında müəyyən radiasiya defektlərinin yaranması ilə şərtlənir ki, nəticədə ED – 20 oliqomerində makromolekul zəncirlərinin tikilməsi və üstmolekulyar quruluşda strukturun yenidən qurulması baş verir. Bu defektlər elektrik yükdaşıyıcılarını qadağan olunmuş zonasından keçirir. Beləliklə γ-şüalanma materialın yük toplamaq qabiliyyətini artırır və nəticədə ε' böyüyür.




Şəkil 2. Şüalahmamış D=0 (a), D=100kQr (b) və D=600kQr (c) udulma dozalarında γ-şüalarla şüalandırılmış ED-20, ED-20/$Al(OH)_3$ və ED-20/nano-$Al(OH)_3$ kompozit nümunələrinin dielektrik itki bucağının tangensinin temperatur asılılıqları tgδ=$f$(T), doldurucunun miqdarı 5 kütlə. %, ν=1kHz.

Dielektrik itki bucağının tangensinin 1 kHs tezlikdə temperatur asılılıqlarından tgδ=$f$(T) (şəkil 2) göründüyü kimi tədqiq olunan kompozitlərdə temperaturun artması ilə tgδ böyüyür. Tədqiq olunan kompozit nümunələrinin dieletrik itkilərinin yüksək temperaturlarda D=600kQr udulma dozasında ölçülmüş qiymətləri şüalanmamış (D=0) və D=100kQr udulma dozasında ölçülmüş γ-şüalarla şüalandırılmış nümunələrin qiymətlərindən xeyli böyük oldüğundan, hesab etmək olar ki, udulma dozasın artması tgδ-nın temperatur dispersiyasının dərinliyini artırır.




Şəkil 3. Şüalanmamış D=0 (a), D=100kQr (b) və D=600kQr (c) udulma dozalarında γ-şüalarla şüalandırılmış ED-20, ED-20/$Al(OH)_3$ və ED-20/nano-$Al(OH)_3$ kompozit nümunələrinin xüsusi həcmi elektrik müqavimətinin logaritmik qiymətinin temperatur asılılıqları $lg\rho_v$ =$f$(T), doldurucunun miqdarı 5 kütlə. %, ν=1kHz.

Şəkil 3-dən aydın görünür ki, tədqiq olunan kompozitlərdə temperaturun artması ilə xüsusi həcmi elektrik müqaviməti $\rho_v$ azalır. Qeyd edək ki, şüalanmamış (D=0) ED-20 nümunələrinin xüsusi həcmi elektrik müqaviməti minimum qiymətə malikdir ($lg\rho_{v,303K}$ =8,05 Om·m) və temperaturun artması ilə sürətlə aşağı düşür ($lg\rho_{v,473K}$ =6,80 Om·m).

Polimer materiallar üçün $\rho_v$ parametrinin temperaturdan asılı olaraq azalması hetorogen amorf materiallar üçün xarakterikdir.Tədqiq olunan nümunələrdə $lg\rho_v$ =$f$(T) asılılığının təbiəti(dəyişmə xarakteri) eynidir və sıçrayışlı keçiricilik üçün tipikdir.

γ-şüalarla şüalandırılmış ED-20/nano-$Al(OH)_3$ nümunələrində $\rho_v$-nin kiçilməsinin (elektrik keçiriciliyinin böyüməsnin) səbəbi radiolizdən sonra kompozitdə formalaşan ion və sərbəst radikalların onun həcmində qismən tələlərdə tutulmasıdır.

**NƏTICƏ**

Qamma şüalanmanın ED-20/nano-$Al(OH)_3$ və ED-20/$Al(OH)_3$ nano-və mikrokompozitlərinin elektrofiziki xassələrinə təsiri nəticəsində müşahidə olunan dəyişikliklərin səbəbi D=100kQr və D=600 kQr udulma dozalarında mikrokompozit nümunələrində radioliz zamanı $Al(OH)_3$ mikrohissəcikləri polimer matrisinin tikilmə prosesinə mane olmasa da makromolekulların hərəkətliliyini azaldır. Eyni zamanda, nanokompozit nümunələri üçün ε' qiymətlərinin artması, xüsusi həcmi elektrik müqavimətinin qiymətlərinin kiçilməsi nano-$Al(OH)_3$-in kimyəvi təbiəti ilə əlaqəlidir,

bu da radioliz zamanı epoksi matrisin tikilməsi baş versə də, yük daşıyıcıların əlavə bərpası mənbəyi kimi nanokompozitlərin polyarlılığını artırır.

Tədqiq olunan nümunələrdə $lg\rho_v = f(T)$ asılılığının dəyişmə xarakteri eynidir və sıçrayışlı keçiricilik üçün tipikdir.

Tədqiq olunan kompozit nümunələrin elektrofiziki xassələri 600 kQr udulma dozasına qədər qamma- şüalar ilə tənzimlənə bilər.

**ƏDƏBIYYAT SIYAHISI**

1.N.Ş.Əliyev, M.N.Bayramov, B.Ə.Məmmədov, A.Ə.Nəbiyev Yüksək sıxlıqlı polietilen/$TiO_2$ kompozitlərində quruluş-relaksasiya proseslərinə doldurucuların və γ-şüalanmanın təsiri. Journal of Radiation Researches Azerbaijan National Academy of Sciences İnstitute of Radiation Problems, Volume 5, N2, 2018, Baku.

2. В.И. Иржак. Эпоксидные полимеры и нанокомпозиты – Черноголовка: «Редакционно-издательский отдел ИПХФ РАН», 2021. – 319 с.

3.А Ш.М.Маммадов, А.А.Гарибов.Радиационная физика и химия полимеров. Институт Радиационных проблем НАН Азербайджана. АГНА,2015, 547 с.

**4.** M. Hashimov, N.M. Tabatabaei, U.F. Samedova, M.A. Nuriyev, M.N. Bayramov, A.O. Mehrabov. Microwave absorbing property of epoxy resin composites with added $Fe_3O_4$ nanoparticles. International Journal on "Technical and Physical Problems of Engineering" (IJTPE). March 2019 Issue 38 Volume 11 Number 1 Pages 16-20.

**5** .Зарипов Ильназ Ильгизович, Вихарева Ирина Николаевна, Буйлова Евгения Андреевна, Берестова Татьяна Вячеславовна, Мазитова Алия Карамовна. Добавки для понижения горючести полимеров. Нанотехнологии в строительстве: научный интернет-журнал @nanobuild. 2022;14(2);156-161.

6. Ю.А. Амелькович, О.Б. Назаренко, И.Н. Смирнова, Т.А. Задорожная. Сравнительное исследование влияния антипиренов на температуру зажигания эпоксидных композитов. Eurasian Physical Technical Journal, 18(2(36), 76–80. https://doi.org/10.31489/2021No2/76-80.

7. А. С. Мостовой, Е. В. Плакунова, Л. Г. Панова . Разработка огнестойких эпоксидных композиций и исследование их структуры и свойств. Перспективные материалы, 2014 № 1, с. 37-43

# LAZER ŞÜALANMASININ ŞÜŞƏYƏ ZONDLANMASI ÜSULU İLƏ AKUSTİK İNFORMASİYANIN ƏLDƏ EDİLMƏSİNİN BƏZİ XÜSUSİYYƏTLƏRİ

**Əşrəf Hüseynov**
*milli təhlükəsizlik və hərbi elmlər üzrə fəlsəfə doktoru, dosent*

**Emin Nəsirov**
*fizika üzrəfəlsəfə doktoru, dosent*

**İlqar Süleymanov**
*Heydər Əliyev adına Hərbi İnstitut, Bakı*
*E-mail: huseynovashraf71@yandex.ru; emin-nasirov@inbox.ru, s_ilgar@mail.ru.*

**Xülasə:** Məqalədə lazer şüalanmasının pəncərə şüşəsinə zondlanması zamanı şüşəsinin titrəməsi nəticəsində yaranan rəqslərin optik lokasiyası vasitəsi ilə akustik informasiyanın əldə edilməsinin bəzi xüsusiyyətlərinə baxılmışdır. Bu üsul bir sıra unikal xüsusiyyətlərə malikdir olduğu üçün elmi tədqiqat işlərində mühüm rol oynayır.

**Açar sözlər:** Lazer şüalanmasının zondlandırılması, pəncərə şüşəsi, atmosfer optik kommunikasiya sistemi, optik-elektron texniki sızma kanalı, fotoqəbuledici.

**Giriş**

Hal-hazırda şüşə üzərinə lazer şüalanmasının zondlanması ilə akustik məlumatların alınması sahəsində tədqiqatların aktuallığı danılmazdır. Bu üsul yüksək dəqiqliyi və səmərəliliyi ilə müxtəlif elmi və sənaye sahələrində əsas alətə çevrilmişdir. Şüşə və digər materialların fiziki və mexaniki xassələrini mikro səviyyədə öyrənməyə imkan verərək, materialşünaslıq, fizika, tibb və sənaye kimi sahələrdə tətbiqini tapır.

Lazer zondlama üsulu tədqiq olunan materialda akustik dalğaları yaratmaqdan daha çox qeyd etmək üçün lazer dəstəsinin istifadəsinə əsaslanan bir üsuldur. Şüşə kontekstində bu, onun daxili strukturunu öyrənməyə, gərginlik səviyyələrini təyin etməyə, qüsurları müəyyən etməyə və mexaniki xüsusiyyətlərini qiymətləndirməyə də imkan verir. Bu yanaşma böyük praktik əhəmiyyət kəsb edir, çünki şüşə pəncərələrin və qablaşdırma materiallarının istehsalından tutmuş tibbi cihazların və optik cihazların istehsalına qədər müxtəlif sənaye sahələrində geniş istifadə olunur.

Müasir dünyada akustik məlumatların əldə edilməsi üsulları elmdən tutmuş sənayeyə qədər müxtəlif sahələrdə mühüm rol oynayır. Bu üsullardan biri xüsusilə aktual olan lazer şüalanması ilə zondlamadır. Şüşə üzərinə lazer şüalanması ilə zondlama üsulundan istifadə edərək akustik məlumatın əldə edilməsinin tədqiq olunması bir çox sahələrdə, o cümlədən hərbi sahədə də vacib məsələlərdən biridir. Bu da həyatın bütün sahələrinin təhlükəsizliyinin təmin edilməsi problemlərinin rolu və aktuallığının əhəmiyyətli dərəcədə artması ilə xarakterizə olunur. Bu proses informasiya sferasının təhlükəsizliyi üçün xüsusilə əlamətdardır və 21-ci əsrdə dövlət orqanlarının xüsusi xidmət dairələrinin səlahiyyətlərindən çıxaraq cəmiyyətdəki münasibətlər səviyyəsinə qədər yüksəlmişdir. İnformasiya təhlükəsizliyinə təhdidlərin əsas mənbələrindən biri xarici kəşfiyyat xidmətlərinin, rəqiblərin, cinayətkar icmaların, təşkilatların, qrupların, birləşmələrin və ayrı-ayrı kənar şəxslərin girişi üçün qapalı olan qiymətli (məxfi) məlumatların toplanmasına yönəlmiş fəaliyyətidir. Şərti düşmənin planlarından xəbər tutmaq, kəşfiyyat orqanlarının difersiya-terror fəaliyyətinə qarşı tədbirlər həyata keçirərək zərərləşdirmək, eləcədə əməliyyatların uğurla həyata keçirmək üçün məlumatların toplanması Silahlı Qüvvələrin müvafiq bölmələri tərəfindən informasiyanın texniki sızma kanallarının təşkili zəruridir.

İnformasiya sızmasının texniki kanalı dedikdə, texniki vasitələrdən istifadə etməklə obyekt haqqında məlumatlarının əldə edilməsi üsulu başa düşülür [1, s.5].

Məlumdur ki, informasiyanın daşıyıcıları siqnallardır. Siqnallar müəyyən fiziki mühitlərdə yayılır və bu zaman bəzi fiziki proseslər baş verir. Texniki kəşfiyyat vasitələri texniki informasiya sızması kanallarını yaratmaq, həmçinin informasiya sızması kanallarında siqnalları qəbul etmək və onlardan faydalı informasiyanı çıxarmaq üçün istifadə olunur. Daşıyıcısı akustik siqnallar olan məlumat akustik məlumat adlanır. Əgər informasiyanın mənbəyi insan nitqidirsə, onda akustik məlumat nitq məlumatı adlanır. malikdir. Nitqə xas olan bir sıra spesifik xüsusiyyətli şifahi şəkildə ötürülən məlumat ən böyük dəyərə malikdir. Məlumdur ki, texniki ötürmə vasitələrinə həvalə edilə bilməyən məlumatları şifahi şəkildə çatdırmaq daha təhlükəsizdir və səsləndirildiyi anda əldə edilən informasiya ən operativ informasiyadır.

Nəzəriyyədən məlumdur ki, nitq siqnalı 200–300 Hs-dən 4–6 kHs-ə qədər tezlik diapazonunda mürəkkəb akustik siqnaldır. İnformasiya siqnallarının meydana gəlməsinin fiziki təbiətindən, akustik rəqslərin yayılma mühitindən və onların ələ keçirmə üsullarından asılı olaraq akustik (nitq) məlumatın texniki sızma kanalları hava, vibroakustik, akustoelektrik, optik-elektron və parametrik kanallara bölünür [1, s.27]. Bu məqalədə şüşəyə lazer şüalanmasının zondlanması zamanı yaranan optik-elektron texniki sızma kanalı ilə akustik informasiyanın əldə olunması prosesinə baxacayıq.

**Tapşırığın qoyuluşu**

Şüşəyə lazer şüalanmasının zondlanması zamanı yaranan optik-elektron (lazer) texniki sızma kanalında nitq informasiyasını əldə etmək üçün mürəkkəb lazer akustik lokasiya sistemləri tətbiq olunur. Bəzi hallarda belə sistemlərə "lazer mikrafonları"da deyilir (şəkil 1).




**Şəkil 1. Optik-elektron texniki sızma kanalının struktur sxemi**

Akustik informasiyasının əldə edilməsi üçün fotoelastik effektin xüsusiyyətlərinə əsaslanan səyyar atmosfer optik kommunikasiya sisteminin (SAOKS) qəbuledicisindən (rəqəmsal-analoq çevirici sxemdən çıxarmaq şərti ilə) də istifadə edərək optiko-elektron texniki sızma kanalı yaratmaq mümkündür. Bu sistemin iş prinsipi və baş verən fiziki proseslər barədə geniş məlumat [2,s.66-100], [3, s.20-27], [4, s.165-167], [5, s.73-75] işlərdə öz əksini tapmışdır.

Optik-elektron (lazer) sızma kanalı akustik informasiyanın təsirindən akustik sahədə titrəyiş edən nazik əks etdirici səthlərin (pəncərə şüşəsi, rəsm, güzgü və s.) lazer şüası ilə şüalanması zamanı əmələ gəlir [1, s.37]. Əks olunmuş işıq dəstəsi (diffuz edici və ya güzgü) titrəyiş edən nazik əks etdirici səthə düşərək (hazırki halda pəncərə şüşəsinə) səthin vibrasiya qanununa uyğun olaraq amplituda və fazaya görə modulyasiya olunur və optik (lazer) şüalanma qəbuledicisi tərəfindən qəbul edilir, demodulyasiya zamanı nitq informasiyası çıxarılır. Bundan əlavə, lazer optik şüalanma qəbulediciləri bir və ya müxtəlif yerlərdə (otaqlarda) quraşdırıla bilər.

Kanalın yaradılmasında müxtəlif dalğa uzunluğuna malik yarımkeçirici lazerlərdən istifadə etmək olar (cədvəl 1) [2, s. 21-23], [6, s.160].

*Təqdim olunan işin məqsədi – Şüşəyə lazer şüalanmasının zondlanması zamanı yaranan optik-elektron (lazer) sızma kanal vasitəsi ilə akustik (nitq) informasiyasının alınmasının tədqiq edilməsi və adi şüşəyə akustik təsir zamanı yaranan mexaniki rəqslərin aktiv optik lokasiyasının mümükünlüyünü eksperiment yolu təsdiqləməkdir.*

**Cədvəl 1. Geniş yayılmış yarımkeçirici lazerlərin növləri və onların göstəriciləri**

| **Lazer növləri** | **Aktiv mühit** | **λ, *mkm*** | **İş rejimi** | **Şüalanma gücü** | **İmpulsun təkrarlanma tezliyi,*hs*** | **İmpuls müddəti** | **Süanın səpələnməsi** | **FİƏ** | **Tətbiq sahələri** |
|---|---|---|---|---|---|---|---|---|---|
| Yarımkeçirici lazerlər | GeAb | 0,8-0,9 | fasiləsiz tək lazerlər | 5-40 mVt | - | - | 20-40 qrad | 1-30 | Lifli-optiki rabitə xəttlərində, sistemlərində |
| | GeA As | 0,8-0,9 | fasiləsiz inteqrallı qəfəs | 100-500 mVt | - | - | 20-40 qrad | 10-20 | |
| | | 0,8-0,9 | impulslu tək lazerlər | 5-30 Vt (ən yüksək həddə) | $10^3$ | $10^2$ms | 20-40 qrad | 10-20 | İşığın impuls mənbəyi |
| | GalnAb GaAlinAs | 1,3-1,5 | fasiləsiz | 1-5 mVt | - | - | 20-40 qrad | 10-20 | Lifli-optiki rabitə xəttlərində, |
| | Pb5,Pb5e PBTe | 4-15 | fasiləsiz dərin soyutma ilə | 0,1 mVt | - | - | 1 qrad | ~5 | Yüksək icazəli spektroskopiya |

**2. Akustik (nitq) siqnalının şüşəyə təsiri zamanı modulyasiya olunmuş siqnalın qəbuledici vasitəlri**

Lazer şüalanmasının şüşə vasitəsilə modulyasiyası xüsusi tələblərdən və tətbiqlərdən asılı olaraq müxtəlif yollarla həyata keçirilə bilər. Bunlardan biri akustooptik modulyasiyadır.

Akustooptik modulyasiya materialın optik xüsusiyyətlərini dəyişdirmək üçün akustik dalğalardan istifadə edən işıq dəstəsinin modulyasiya üsuludur. Şüşə vasitəsilə lazer şüasının modulyasiyası kontekstində akustooptik modulyasiya lazer şüasının fazasını, amplitudasını və ya istiqamətini dəyişdirmək üçün tətbiq oluna bilər.

Nitq siqnalı akustik dalğalar yarada bilən hava təzyiqindəki dəyişiklikləri təmsil edir. Bu dalğalar şüşəyə bir neçə yolla təsir göstərə bilər, lakin şüşə nisbətən sərt material

olduğundan və səs dalğalarına yaxşı reaksiya vermədiyi üçün ümumiyyətlə təsir kiçik olacaq. Bununla belə, akustik (nitq) siqnalın şüşə ilə qarşılıqlı əlaqədə olmasının bir neçə növü var:

1. Şüşə vasitəsilə səs emissiyası:

Səs dalğaları, şüşədən keçə bilər (xüsusən də çox qalın deyilsə və ya müəyyən dərəcədə şəffaflığa malikdirsə). Bununla belə, şüşə adətən yaxşı səs izolyatoru kimi xidmət edir, ona görə də akustik siqnalların şüşəyə nüfuzu bir qədər məhduddur.

2. Şüşə vasitəsilə işığın modulyasiyası:

Akustooptik effekt səs dalğalarının təsiri altında şüşədən keçən işığı modulyasiya etmək üçün istifadə edilə bilər. Bu, akustik dalğanın təsiri altında şüşənin sınma göstəricisinin dəyişməsinə əsaslanır.

3. Şüşə rezonansına təsir:

Bəzi hallarda, güclü səs dalğaları şüşədə rezonansa səbəb ola bilər ki, bu da onun formasında kiçik dəyişikliklərə səbəb ola bilər. Bununla belə, gündəlik şəraitdə istifadə olunan şüşələr üçün bu dəyişikliklər adətən minimal olacaqdır.

4. Şüşənin vibrasiyası: Akustik siqnal şüşədə vibrasiyaya səbəb ola bilər, lakin bunlar adətən kiçik olacaq və şüşənin optik xüsusiyyətlərinə əhəmiyyətli təsir göstərməyəcək.

5. Ümumiyyətlə, şüşə yüksək sərtliyə malikdir, bu da onun akustik dalğalara qarşı təsirinə az həssas edir.

Yuxarıda qeyd edilmiş faktorlara baxmayaraq şüşənin nitq dalğaların təsirindən kiçik titrəməsi belə qarşıya qoyulmuş məsələlərin həlli üçün şərait yaradır.

SAOKS-ın qəbuledici traktında demodulyator rolunu fotoqəbuledicinin və əməliyyat gücləndiricisinin (ƏG) birləşməsindən əmələ gələn sxem oynayır [2, s.86-91]. Emal olunan siqnalın parametrlərindən aslı olaraq sxemdə müxtəlif növlü fotoqəbuledicilərdən (FQ) istifadə edilə bilər. Fotorezistorlar, fotodiod ($FD_d$) və fotoelektron vurucular (FEV) optik rabitə sistemlərində (ORS) istifadə edilə bilən ən yararlı FQ-dir. SAOKS üçün FQ seçilən zaman spektrial həssaslıq, zaman sabiti və bəzi hallarda işığa həssas apertura səthi kimi parametrlər əsas götürülür. Nəzəriyyədən aydin olur ki, spektrial həssaslıq monoxromatik şüalanma selinin (dalğa uzunluğu $\lambda$ olan) təsiri nəticəsində FQ-nin çıxış reaksiyasını xarakterizə edir [7, s.31-36], [8, s.48-49]. Spektrial həssaslıq oblastı $\lambda$ ətrafında konkret elə dalğa uzunluğu diapazonunu əhatə edir ki, FQ-nin həssaslığı öz maksimum qiymətinin 10 %-dən aşağı olmur. Zaman sabiti-qəbuledicinin çıxışında siqnalın sıfırdan stasionar qiymətindən 0,63 qiymətinə qədər yüksəlmə zamanıdır. Bu parametr FQ-nin minimum davametmə müddətli optik siqnalların qeydiyyata alma xüsusiyyətini əks etdirir. Bundan başqa təhrif olnmamışdan əvvəl qeydiyyata alınan şüalanma selinin mümkün olan modulyasiya tezliyinin maksimum müəyyən edilməsinə imkan yaradır.

FEV-zaman sabiti $10^{-9}$-$10^{-8}$ san təşkil edir [7, s.31-36], [9, s.160]. Müxtəlif fotorezistorlar üçün zaman sabiti $10^{-2}$-$10^{-8}$ san.dir. Bəzi FQ-lərin parametrləri cədvəl 2-də göstərilmişdir [6, s.31-36].

**Cədvəl 2.Fotoqəbulediclər və onların bəzi parametrləri**

| FQ-nin növü | Spektrial həssaslığ oblastı, *mkm* | İnteqral həssaslıq, *mA/lm* | Zaman sabiti, *nsan* | İşığahəssas səthin diametri,*mm* | Mənbə |
|---|---|---|---|---|---|
| FD-24K | 0,4 -1,1 | ≈ 6 | $\leq 10^4$ | 10 | Məmulatın pasportu |
| FEV-28 | 0,4 -1,1 | $\approx 10^3$ | ≤9 | 34 | Məmulatın pasportu |
| FEV-114 | 0,25 -0,85 | $\approx 3 \cdot 10^4$ | ≤9 | 10 | Məmulatın pasportu |

SAOKS -un struktur sxeminə uyğun olaraq qurulmuş qəbuledici traktın elektrik prinsipial sxemi, elementlərinin nominalları və onun iş prinsipi [2, s. 98-100] işdə geniş izah olunmuşdur

Qəbuledicinin elektrik prinsipial sxeminin əsas elementləri fotodiod ($FD_d$), ƏG, giriş gücləndiricisi, aşağı tezlik gücləndiricisi (ATG) və stablizatordur. Qəbuledici traktında FD-24K $FD_d$ istifadə edilmişdir. Bu $FD_d$-nin (400-700 nm dalğa uzunluğu) maksimum həssas nöqtədə dalğa uzunluğu 580 nm, işığa həssas sahəsi 1,5 $mm^2$ qaranlıq cərəyan 10 nA-dir [7, s.31-36]. Şəkil 2-də FD-24K fotodiodunun üzərindən seçilmiş fotoqəbuledici göstərilmişdir. Bu $FD_d$-un seçilməsi onun işığa həssas səthinin böyük diametrə malik olması ilə əlaqəlidir [1, s.91], [7, s.31-36].




**Şəkil 2. FD-24K fotodiodu üzərindən seçilmiş fotoqəbuledicinin prinsipial sxemi**

Giriş gücləndiricisi LM6142 markalı ƏG üzərində reallaşdırılmışdır.Verici traktda olduğu kimi, ƏG-nin effektiv işi ilə əlaqədar seçim həmin bu gücləndirici üzərində dayanmışdır. SAOKS-da birqütüblü qida mənbəyindən istifadə edilir.

Qəbuledici traktda aşağı tezlikli siqnalın gücləndirilməsi TDA-2822m mikrosxemi üzərindən həyata keçirilir. Bu gücləndirici kiçik qida gərginliyi, kiçik cərəyan tələb etdiyinə körpü və stereo rejimlərində işləmə qabiliyyətinə malik olduğuna görə SAOKS-da istifadə edilmişdir. TDA-2822-nin güclənmə əmsalı 36-41 db arasında hər kanalda çıxış gücü isə 0,45-1,7 vt-a qədərdir.

**Eksperimental təcürbələr**

Optik-elektron (lazer) sızma kanalı ilə akustik (nitq) informasiyasının kəşfiyyat hədəflərindən alınmasının tədqiq edilməsi və adi şüşədən zəif mexaniki rəqslərin aktiv optik lokasiyasının mümükünlüyünü tədqiq etmək üçün eksperimentin sxemi şəkil 4-də, burada istifadə olunan ölçü cihazları və hissələri cədvəl 3-də verilir.

MSO4052 osilloqrafı fotoqəbuledicinin cıxışın birləşdirilərək siqnalların parametrlərinin müəyyən edilməsi üçün sazlanmışdır.

Eksperimentdə əlavə cihazlardan istifadə etməmək üçün (infraqırmızı şüaların müşahidə edilməsi üçün qurğulardan) koherent işıq mənbəyi kimi görünən işıq diapazonunda işləyən WAVGAT-5V yarımkeçirici lazerdən istifadə olunub.

Eksperiment üç mərhələdə aparılmışdır.

Birinci mərhələdə informasiya toplamaq arzusunda olan şəxs qonşu binadan və ya obyektdən optik yarımkeçirici lazer quraşdıraraq onun şüasını mübadilə aparılan otağın pəncərəsinə yönəldir, yəni pəncərə şüşəsi lazerin şüası ilə zondlaşdırılır.




**Şəkil 4. Şüşədən zəif mexaniki rəqslərin aktiv optik lokasiyasını tədqiq etmək üçün eksperimentin sxemi**

**Cədvəl 3. Eksperimentdə istifadə olunan ölçü cihazları və hissələri**

| S/s | Adı | Növü | Miqdarı | Qeyd |
|---|---|---|---|---|
| 1 | Yarımkeçirici lazer | WAVGAT-5V | 1 | işıq dəstəsinin diametri 3 mm; *gücü* $P_0$=5mVt olan; λ=0,63 mkm; |
| 2 | Fotodiod | FD-24K | 1 | Çıxış siqnalının tezlik sapmasından aslılığını tədqiq edərkən diametri 10 mm və sabit zamanı 10 mks olan dairəvi fotohəssas elementli fotodiodla əvəz edilir. |
| 3 | Osilloqrafının | MSO4052 | 1 | |
| 4 | Yarıqlı ekran | - | 1 | deşiyinin eni 1x 5 mm |
| 5 | Pəncərə şüşəsi | - | 1 | |

İkinci mərhələdə otaqda informasiya mübadiləsi aparılır. Akustik (nitq) rəqslərin təsiri altında pəncərə şüşəsinin hiss olunmaz dərəcədə titrəməsi (vibrasiyası) baş verir. Bu zaman zəif mexaniki rəqslər yaranır. Şüşənin hamar səthinə düşən lazer şüalanmasının intensivliyi zəif mexaniki rəqlərin təsirindən dəyişir, yəni modulyasiya baş verir.

Üçüncü mərhələdə ikinci bir şəxs digər bir tətəfdə SOAKS –in qəbuledicisini quraşdıraraq şüşədən əks olunmuş, akustik (nitq) rəqslərin təsiri altında pəncərə şüşəsinin titrəməsi nəticəsində baş vermiş modulyasiya olunmuş siqnalı daşıyan lazer şüasını qəbul edir. İşıq dəstəsi diafraqmadakı kiçik deşikdən keçir və fotodiodda qeydiyyata alınır.

Eksperimental təcürbədə istifadə olunan lazer görünən işıq diapazonunda işləyən yarımkeçirici lazerdir. Gələcəkdə bu eksperimenti infraqırmızı diapazonda işləyən lazer vasitəsi ilə həyata keçirilməsi nəzərdə tutulmuşdur.

**Nəticə**

Aparılmış eksperimental tədqiqat zamanı lazer şüalanmasının şüşəyə zondlanması üsulu ilə yaradılan optik-elektron (lazer) sızma kanalı vasitəsi ilə akustik (nitq) informasiyasının kəşfiyyat hədəfindən (bizim eksperimentdə bu hədəf otaq və onun içində mübadilə aparan şəxslərdir) alınmasının, eləcədə adi şüşədən keçərək zəif mexaniki rəqslərin təsiri altında modulyasiya olmuş siqnalın aktiv optik lokasiyasının mümükünlüyünü sübuta yetirilmişdir.

Unutmaq lazım deyil ki, düşməndə öz növbəsində texniki sızma kanallarından istifadə edərək məlumatların əldə edilməsi üçün aktiv fəaliyyətdədir. Belə ki, potensial düşmənin texniki kəşfiyyatının məlumat əldə etmək qabiliyyəti onun informasiya mənbələrinə mümkün çıxış yollarının mövcudluğundan, o cümlədən kəşfiyyatla əlaqələri yaratmaq üçün onun müəyyən etdiyi və ya qəsdən yaratdığı texniki sızma kanallarını təmin edən texniki vasitələrdən asılıdır.

Nəticə etibarilə, texniki vasitələrlə informasiyanın mühafizəsinin əsas vəzifəsi informasiyanın mümkün sızmasının bütün təbii və süni şəkildə yaradılmış texniki kanallarını operativ şəkildə aşkar etmək, aradan qaldırmaq və bağlamaqdır.

**Ədəbiyyat**

1. Соколов, А. И. Технические средства защиты информации: технические каналы утечки информации,: учеб. пособие / А. И. Соколов, М. Ю. Монахов ;– Владимир : Владим. гос. ун-та, –2006. – 71 с.
2. Hüseynov,Ə.Q. Portativ optik rabitə sistemi:/milli təhlükəsizlik və hərbi elmlər üzrə fəlsəfə doktoru dis./ - Bakı, 2022.- 191 s.
3. Hüseynov, Ə.Q. Portativ optik rabitə sisteminin struktur sxeminin seçilməsi // – Bakı: Milli təhlükəsizlik və hərbi elmlər. "Qızıl Şərq" mətbəəsi. – 2020 №1 (6),– s. 20-27.
4. Hüseynov, Ə.Q. Portativ optik rabitə sistemi // "Telekommunikasiyada innovativ texnologiyalar" mövzusunda Beynəlxalq elmi-texniki konfransın materialları, – Bakı: – 4 dekabr – 6 dekabr, – 2019, – s.165-167.
5. Rüstəmov, Ə.R. Portativ optik rabitə sisteminin qurulma xüsusiyyətləri / Ə.R. Rüstəmov, Ə.Q. Hüseynov // – Bakı:H.Əliyev adına AAHM Elmi əsərlər məcmuəsi, – 2019. № 1 (33), – s.73-75.
6. Davis, C.C. Lasers and electro-optics. 2nd ed. Camb / C.C. Davis. – N.Y.: Camb. Univ. Press, – 2014. – 882 p.
7. Гасанов, Р.А. Фотоприемные устройства для акустооптических линий задержки // – Москва: Приборы и системы. Управление, контроль, диагностика, – 2015. № 12, – с.31-36.
8. Фотоприемники видимого и ИК излучения / Р.Дж.Кнес, П.В. Крузе, Э.Г. Патли [и др.]. – Москва: радио и связь, – 1985. – 328 с.
9. Аксененко, М.Д. Приемники оптического излучения. Справочник / М.Д. Аксененко, М.Л. Бараночников – Москва: Радио и связь, – 1987. – 296 с.

# НЕКОТОРЫЕ ОСОБЕННОСТИ ПОЛУЧЕНИЯ АКУСТИЧЕСКОЙ ИНФОРМАЦИИ МЕТОДОМ ЗОНДИРОВАНИЯ ЛАЗЕРНОГО ИЗЛУЧЕНИЯ НА СТЕКЛЕ

**Ашраф Гусейнов**
*доктор философии по национальной безопасности и военным наукам, доцент*

**Емин Насиров**
*доктор философских наук по физике, доцент*

**Ильгар Сулейманов**
*Военный Институт имени Гейдара Алиева, Баку*

**Аннотация**

В статье рассмотрены некоторые особенности получения акустической информации посредством оптической локации колебаний, при зондировании лазерного излучения на оконном стекле. Этот метод играет важную роль в научных исследованиях, поскольку обладает рядом уникальных особенностей.

**Ключевые слова:** Зондирование лазерного излучения, оконное стекло, атмосферная оптическая система связи, оптико-электронный технический канал утечки, фотоприемник.

## SOME FEATURES OF OBTAINING ACOUSTIC INFORMATION BY METHOD OF PROBING LASER RADIATION ON GLASS

**Ashraf Huseynov**
*Ph.D. in national security and military sciences, associate professor*
**Emin Nasirov**
*Doctor of Philosophy in Physics, associate professor*
**İlqar Suleymanov**
*Military Institute named after Heydar Aliyev, Baku*

**Abstract**

The article discusses some features of obtaining acoustic information through optical location of vibrations when probing laser radiation on window glass. This method plays an important role in scientific research because it has a number of unique features.

**Keywords:** Laser radiation sensing, window glass, atmospheric optical communication system, optical-electronic technical leakage channel, photodetector.

## Neptun ailəsi kometlərinin dinamik xüsusiyyətləri

**H. Ə. Qasımov[1], Ə. R. Həsənzadə[2], Ə. T. Həmidova[2]**
**Bakı Mühəndislik Universiteti**

**XÜLASƏ**

Tədqiqat işi afelisi Neptun planetinin orbitinin yaxınlığında cəmlənmiş kometlərin planetlə qarşılıqlı təsirinə həsr olunmuşdur. Kometlərin orbit elementlərini və Neptun planetinə görə Tisserand parametrlərini təhlil edərək Neptun komet ailəsinin necə formalaşması müəyyən olunmuşdur. Afelisi $27 < Q < 33$ a.v. intervalında olan 20 kometin Tisserand parametri hesablanmışdır. Beş kometin orbit müstəvisinin ekliptika müstəvisinə olan meyl bucağı $90^o$-dən böyük olduğuna görə onlar Günəş ətrafında tərsinə hərəkət edirlər. Beş kometin Tisserand parametrinin ikidən kiçik olması planetin təsiri ilə uzun dövrlü kometlərin periodik kometə çevrilməsi prosesinin getdiyini göstərir.

**Açar sözlər: Neptun planetinin komet ailəsi, Tisserand parametri**

**ABSTRACT**

The research work is devoted to the interactions of comets with planet Neptune, whose aphelion is concentrated near the planet. By analyzing the orbital elements of comets and the Tisserand parameters according to the planet Neptune, it was determined how the Neptune family of comets was formed. The Tisserand parameter of 20 comets whose aphelion is in the interval $27 < Q < 33$ AU was

calculated. Five comets have retrograde motion around the Sun due to the inclination angle of the orbital plane to the ecliptic plane greater than $90^o$. The Tisserand parameter of five comets is less than two indicating the transformation of long-period comets into periodic comets is due to the influence of the planet.

**Key words: Neptune's family of comets, Tisserand parameter**

## GİRİŞ

Kometlərin dinamik xüsusiyyətlərindən biri onların afelilərinin nəhəng planetlərin yaxınlığında cəmlənməsidir. Bu paylanmanın qeyri-bərabər olması statistik olaraq əsaslandırılmışdır [1]. Nəhəng planetlərin hər biri komet ailələrinə sahibdirlər. Yupiter komet ailəsi 422, Saturn ailəsi 169, Uran ailəsi 31, Neptun ailəsi 20 kometə sahibdir. Bu saylar şərtidir və hər il komet ailələrinə yeni üzvlər əlavə olunur. Nəhəng planetlərin komet ailələrinə sahib olmaları onların MOID-lərinə (Minimum Orbit Intersection Distance – Orbitlərin kəsişməsinin minumum məsafəsi ) görə də yoxlanılmışdır. Bu metodla 309 kometin Yupiterin, 69 kometin Saturnun, 6 kometin Uranın təsir sferasında olduğu müəyyən olunmuşdur.

Nəhəng planetlərin komet ailələrinin necə formalaşması Planetologiya elminin aktual məsələlərindəndir. Bu barədə bir çox tədqiqat işləri həyata keçirilmiş, müxtəlif hipotezlər irəli sürülmüşdür. Komet ailələrinin planetlərin "zəbtetmə" fəaliyyəti nəticəsində formalaşmasını Laplas və onun davamçıları təklif etmişlər [2]. Yipiter planetinin kometləri "zəbt" etmələri üçün Günəş mərkəzli bu bölgədən milyonlarla kometin keçməsi lazımdır. Bunun mümkün olmadığını Lagranj və davamçıları qeyd edərək eruptiv hipotezi təklif etmişlər [3]. Onlar, nəhəng planetlərin və ya onların buzlu peyklərində vulkanların baş verməsi nəticəsində kometlərin yaranmasını qeyd edirdilər. Daha sonralar kometlərin Günəş sisteminin yarandığı ilkin dövrlərindən qalan reliktiv materialdan [4] və ya asteroidlərdən formalaşmasını [5] müdafiə edən tədqiqat işləri meydana gəlməyə başladı. Bu hipotezləri müxtəlif metodlarla yoxlamaqla kometlərin mənşə məsələsinə aydınlıq gətirilməsi aktual məsələlərdəndir. Bu işdə Neptun komet ailəsinə mənsub olan kometlərin orbit elementlərini və Tisserand parametrlərini təhlil edərək ailənin necə formalaşması müəyyən edilməyə çalışılmışdır.

## TƏDQIQAT METODU

Tədqiqat işində afelisi Neptun planetinin yaxınlığında cəmlənmiş 20 kometin məlumatlarından istifadə olunmuşdur. Kometlərin orbit elementləri NASA-nın Kiçik Göy Cisimləri verilənləri bazasından götürülmüşdür [6]. Həmin kometlərin orbit elementləri cədvəl 1-də verilmişdir.

**Cədvəl 1. Neptun kometlərinin orbit elementləri**

| Sıra | Kometlər | a (a.v.) | i (dərəcə) | e (eksen) | q (periheli) | Q (afeli) |
|---|---|---|---|---|---|---|
| 1 | C/1921 H1 | 17.10 | 22.34 | 0.93 | 1.11 | 33.08 |
| 2 | C/1999 E1 | 16.34 | 46.88 | 0.76 | 3.92 | 28.76 |
| 3 | C/1999 XS87 | 17.38 | 14.84 | 0.84 | 2.77 | 32.00 |
| 4 | C/2000 D2 | 17.27 | 156.99 | 0.86 | 2.29 | 32.26 |
| 5 | C/2002 A1 | 17.17 | 14.05 | 0.72 | 4.71 | 29.64 |
| 6 | C/2002 A2 | 17.21 | 14.05 | 0.72 | 4.70 | 29.71 |
| 7 | C/2002 K4 | 17.52 | 94.06 | 0.84 | 2.76 | 32.29 |
| 8 | C/2011 S2 | 16.30 | 17.57 | 0.93 | 1.11 | 31.49 |
| 9 | C/2012 BJ98 | 17.06 | 2.636 | 0.87 | 2.15 | 31.97 |
| 10 | C/2012 H2 | 16.13 | 92.83 | 0.89 | 1.71 | 30.55 |
| 11 | C/2015 F5 | 15.54 | 149.25 | 0.97 | 0.34 | 30.75 |
| 12 | C/2015 GX | 16.18 | 90.25 | 0.87 | 1.97 | 30.40 |
| 13 | C/2015 V4 | 18,54 | 60.75 | 0.70 | 5.45 | 31.63 |
| 14 | C/2015 X2 | 15,75 | 72.45 | 0.87 | 1.90 | 29.59 |
| 15 | C/2015 X4 | 18,13 | 29.50 | 0.81 | 3.39 | 32.87 |
| 16 | C/2015 YG1 | 17.16 | 57.33 | 0.87 | 2.07 | 32.64 |
| 17 | C/2017 U5 | 16.93 | 18.95 | 0.74 | 4.32 | 29.55 |
| 18 | C/2018 A6 | 15.35 | 76.95 | 0.80 | 3.01 | 27.68 |
| 19 | C/2019 F2 | 16.54 | 19.18 | 0.86 | 2.23 | 30.86 |
| 20 | C/2020 X2 | 16.37 | 18.19 | 0.76 | 3.82 | 28.92 |

Kometlər Günəş sisteminin daxili bölgələrinə daxil olduqları zamanı onların orbit elementləri nəhəng planetlərin təsiri ilə dəyişir. Dəyişməyən meyl bucağının, böyük yarımoxun və ekssentrisitetin funksiyası olan Tisserand parametridir. Tisserand parametri (və ya Tisserand sabiti) nisbətən kiçik

cismin və daha böyük "həyacanlandıran" cismin bir neçə orbital elementindən (böyük yarımox, orbital ekssentrisitet və meyl bucağı) hesablanmış sabitdir. Tisserand parametrindən müxtəlif növ orbitləri ayırd etmək üçün istifadə olunur. Termin adını [7] fransız astronomu F. Tisserandın şərəfinə adlandırılmış və kütlə baxımından çox fərqli olan məhdud üç cisim məsələsinin həllində istifadə olunur. Yupiter komet ailəsi üçün Tisserand parametri H. Qasımovun əvvəlki işlərində həyata keçirilmişdir [8]. Kometlərin Neptun planetinə görə Tisserand parametri (1) ifadəsi ilə hesablanmışdır.

$$T = \frac{a_p}{a} + 2cosi\sqrt{\frac{a}{a_p}(1-e^2)} \quad (1)$$

burada, $a_p$ - Neptun planetinin orbitinin böyük yarımoxu, a-komet orbitinin böyük yarımoxu, e – komet orbitinin ekssentrisiteti, $i$- kometin meyl bucağıdır.

Hesablamanın nəticəsi cədvəl 2-də verilmişdir.

**Cədvəl 2. Neptun kometlərinin Tisserand sabiti**

| Sıra | Kometlər | Tisserand sabiti |
|---|---|---|
| 1 | C/1921 H1 | 2.270 |
| 2 | C/1999 E1 | 2.494 |
| 3 | C/1999 XS87 | 2.526 |
| 4 | C/2000 D2 | 1.029 |
| 5 | C/2002 A1 | 2.768 |
| 6 | C/2002 A2 | 2.765 |
| 7 | C/2002 K4 | 1.657 |
| 8 | C/2011 S2 | 2.152 |
| 9 | C/2012 BJ98 | 2.503 |
| 10 | C/2012 H2 | 1.830 |
| 11 | C/2015 F5 | 1.671 |
| 12 | C/2015 GX | 1.856 |
| 13 | C/2015 V4 | 2.164 |
| 14 | C/2015 X2 | 2.116 |
| 15 | C/2015 X4 | 2.445 |
| 16 | C/2015 YG1 | 2.139 |
| 17 | C/2017 U5 | 2.723 |
| 18 | C/2018 A6 | 2.149 |
| 19 | C/2019 F2 | 2.519 |
| 20 | C/2020 X2 | 2.736 |

**NƏTICƏ**

Kometlərin orbit elementlərini təhlil etdikdə Neptun ailəsinə məxsus bir neçə fərqli xüsusiyyətin olduğu görsənir. Yupiter və Saturn ailəsindən fərqli olaraq Neptun kometlərinin meyl bucaqları böyükdür. Beş kometin meyl bucağı $90^o$-dən böyük olduğuna görə onlar Günəş ətrafında tərsinə hərəkət edirlər. Yupiter ailəsində tərsinə hərəkət edən kometlərə rast gəlinmir, Saturn ailəsində isə 169 kometdən yalnız ikisi tərsinə hərəkət edir. Neptun kometlərinin Tisserand sabitlərinin orta qiyməti 2,009-dur. Bu, kometlərdən bəzilərinin Neptun planeti ilə bağlılığının dayanıqlı olmadığını göstərir. Beş kometin Tisserand sabiti ikidən kiçikdir. Bu kometlərin əvvəllər uzun dövrlü kometlər olduğunu göstərir. On beş kometin Tisserand parametrinin $2 < T_p < 3$ intervalında olması onların periodik komet

olmasını təsdiq edir. Bu kometlərin planetin peyklərində baş verən eruptiv proseslər nəticəsində və ya reliktiv materiladan formalaşdığını göstərir. Tisserand parametrlərini təhlil edərək Neptun komet ailəsinin formalaşması əsasən iki hipotezin müddəalarını ödəyir. Planetin "zəbtetmə" fəaliyyəti mümkündür. Lakin, bu hipotezin planet üçün doğruluğu, Tisserand parametri ikidən kiçik kometlərin gələcəkdə iki-üç intervalında qiymətlər aldığı təqdirdə daha etibarlı təsdiq olunacaq. Çünki, meyl bucağı böyük olan kometin planetlə qarşılıqlı bağlılığı o qədər də güclü deyil.

**ƏDƏBIYYAT SIYAHISI**

1. Qasımov H.Ə., Alxanova A.A., Məhəmmədov R.E, Periodik kometlərin afeli məsafəsinə görə təsnifatlandırılması. Ümummilli Liderimiz Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr olunmuş "Gənc tədqiqatçıların VII beynəlxalq elmi konfransı". Azərbaycan. Aprel 2023:98-103.
2. Лаплас П.С. "Изложения системы мира, Л. "Наука" 1982 г. с.373.
3. L. Lagranje, Sur I'origine des comets, Additions a la Connaissance des temps, pp. 381– 395. Paris, 1812
4. Казимирчак—Полонская, Е. И. Захват комет Юпитером и некоторые закономерности вековой эволюции кометных орбит [Текст] / Е. И. Казимирчак—Полонская / В сб.: Проблемы исследования Вселенной (Астрометрия и небесная механика). — М.–Л., 1978. — Т. 7. — С. 340–383.
5. 67. Kresak L. Dynamical interrelations among comets and asteroids//Asteroids/Ed. T. Gehrels. – Tucson: Univ. Arizona Press. – P. 289-309.
6. https://ssd.jpl.nasa.gov/tools/sbdb_lookup.html
7. Tisserand, F. (1896). Traité de Mécanique Céleste. Vol. IV. Gauthier-Villards.
8. Quliyev Ə.S., Qasımov H.Ə. Yupıter komet ailəsi üçün Tisseran sabitinin Günəş fəallığından asılılığı. III International Young Researchers' conference. Azərbaycan. Aprel 2019:s.95-98

# CONDUCTIVITY IN $CuGaS_2$. SINGLE CRYSTALS

**Kh.V.Aliguliyeva, M.Suleymanov, N.F.Mammadzade, A.F.Talifli.**

Sumgait State University
Faculty of Natural Sciences/Department of Natural Sciences
*e-mail: xayala.aliquliyeva@sdu.edu.az
Sumgait, Azerbaijan

**Xülasə**

$A^IB^{III}C^{VI}_2$ və $CuGaS_2$, xüsusilə üçölçülü metal (Cu) vəziyyətlərinin anion(lar)ın valentlik p-vəziyyətləri ilə qarşılıqlı təsirini təmsil edir, onların hibridləşməsinə (qarışmasına) və elektron enerji zolağının strukturunun pozulmasına gətirib çıxarır. Bu fenomen enerji spektrinin xüsusiyyətləri ilə əlaqələndirilir: $CuGaS_2$-də (~2,5 eV) onun ikili analoqu ZnS (~3,82 eV) ilə müqayisədə əhəmiyyətli dərəcədə kiçik bir zolaq boşluğu [6], diapazon boşluğunun temperaturla monoton olmayan dəyişməsi Məs. Eg(T ), mənfi spin-orbital parçalanma ($CuGaS_2$ üçün -0,016 eV) və s.

**Açar sözlər-**bərk məhlullar, çirklilik zonası, keçiricilik, maqnit müqaviməti

**Annotation**

**Keywords**- solid solutions, impurity zone, conductivity, magnetoresistance

$A^IB^{III}C^{VI}_2$ and $CuGaS_2$, in particular, are the interaction of 3d metal (Cu) states with valence p states of the anion (S), leading to their hybridization (mixing) and perturbation of the structure of

electron-energy bands. The features of the energy spectrum are associated with this phenomenon: a significantly smaller band gap in $CuGaS_2$ (~2.5 eV) in comparison with its binary analogue ZnS (~3.82 eV) [6], a non-monotonic change in the band gap with temperature Eg(T), negative spin-orbital splitting (-0.016 eV for $CuGaS_2$), and others .

The electrical conductivity of $CuGaS_2$ single crystals has previously been studied in the temperature range of 80-300K. It was shown that in the studied temperature range, activation, impurity (hole) conductivity with ionization energy of acceptors is observed, increasing from 5 MeV to 70 MeV with an increase in the initial resistance of the samples. The concentration of holes (and at the same time the initial value of conductivity) increased with an increase in the temperature of crystal annealing. We have conducted studies of the electrical conductivity of CuGaS2 single crystals in a wide temperature range of 5-300K in order to clarify the mechanism of charge transfer at low temperatures. $CuGaS_2$ single crystals were obtained by the Bridgman-Stockbarger method from a pre-synthesized sample in a quartz ampoule pumped to a residual pressure of ~103 Pa. The temperature in the furnace was about 1150 $^0$C, the speed of movement of the ampoule in the furnace was about 0.3 mm/min. We examined the samples obtained using a Bruker D8 Advance X-ray diffractometer. Figure 1 shows the results of X-ray diffraction studies, the position of the reflexes is characteristic of CuGaS2. The obtained $CuGaS_2$ single crystals are characterized by a tetragonal lattice with lattice parameters: a = b = 5.36 A $^0$, c = 10.49 A $^0$ and the spatial symmetry group $I\bar{4}2d$




Fig.1. X-ray diffraction in $CuGaS_2$. single crystals.

Another important characteristic of the sample material is the characteristic frequencies of the vibrational spectrum in the center of the Brillouin zone. We also conducted studies of Raman scattering of light in the obtained single crystals of $CuGaS_2$. The research was carried out on a confocal Raman microspectrometer Nanofinder 30 (Tokyo Instr., Japan). The accuracy of determining the position of the RAMAN active frequencies was no worse than 0.5 $cm^{-1}$. Light excitation occurred at the wavelength of the second harmonic of the Nd: YAG laser of 532 nm, the radiation receiver was a cooled CCD camera (~ -700C) operating in photon counting mode. The measurements were carried out in the backscattering geometry. The results of the research are shown in Figure 2.

As noted above, the $CuGaS_2$ unit cell contains 8 atoms and, accordingly, there are 24 lattice modes, 3 of which are acoustic and 21 optical modes. It follows from the group analysis for the center of the Brillouin zone that the vibrational spectrum is described by the following irreducible representations:

State = $1A_1 + 2A_2 + 3B_1 + 3B_2 + 6E$ (1)

here the modes of E are twice degenerated. With the exception of mode $A_2$, all these modes are active, and modes $B_2$ and E are also active.




Fig. 2 Raman spectra in $CuGaS_2$. single crystals. OnT he tab shows less intense lines of RAMAN-active phonons.

The electrical conductivity of $CuGaS_2$ single crystals has been studied by us in a wide temperature range of 5-300K. The measurements were carried out according to a standard four-probe scheme. The samples of $CuGaS_2$ single crystals had a hole conductivity (p-type) of an activation character over the entire range of the studied temperatures of 5-300K




Fig.3. Temperature dependence of the resistivity in single crystals of $CuGaS_2$. (a), the same in Mott coordinates (b).

**Conclusion.**

Thus, it was found that in $CuGaS_2$ single crystals in the temperature range of 100-300 K, the conductivity of thermally excited impurity (acceptor) charge carriers dominates in the allowed zone with activation energy. At lower temperatures (T<10K), the conductivity is carried out by jumping charge carriers over localized states lying in a narrow band of energies near the Fermi level, i.e. there is a hopping conductivity with a variable jump length. As the temperature decreases, the probability of charge carriers jumping to spatially more distant, but energetically closer localization centers increases.

**Literature.**

1. Shay J.L. and Wernick J.H. *Ternary Chalcopyrite Compounds* (Oxford, Pergamon, 1974).
2. Stewart J.M., Chen W.S., Devany W.E. and Mickelsen R.A. *Ternary and Multinary Compounds* (ed. Deb S.K. and Zunger A., Pitsburgh, PA: Materials Research Society, 1987).
3. Shirakata S., Murakami K., Isomura S., Jap. J. Appl. Phys., **28**, 1728 (1989).
4. N. A. Abdullaev, O. Z. Alekperov, Kh. V. Aligulieva, V. N. Zverev, A. M. Kerimova, N. T. Mamedov Journal of Thermoelectricity №1, (2017)
5. N.A. Abdullaev, Kh.V. Aliguliyeva, V.N. Zverev, Z.S. Aliyev, I.R. Amiraslanov, Solid State Physics volume 63, issue 8, (2021)

# EFFECT OF γ–RADIATION ON DIELECTRIC PROPERTIES OF NANOCOMPOSITES

**NABIYEVA A.N.**

Institute of Radiation Problems of SEM
Radiation physics of polymer and electroactive materials
*aysel.nabiyeva21@gmail.com*
BAKU, AZERBAIJAN

**ABSTRACT**

Dielectric properties of high-density polyethylene/ α-$Al_2O_3$ (HDPE+ α-$Al_2O_3$ ) composite films in the temperature range of 20°–110°C and in the frequency range of 25–$10^6$ Hz before and after irradiation have been reported. The samples were irradiated by means of γ-rays from 0 up to 200 kGy. The experimental dielectric data have been analyzed with electric modulus formalism. The electric modulus representation shows well-defined relaxation peaks.

**KEYWORDS: electric modulus, dielectric properties, α-$Al_2O_3$, HDPE, relaxation**

## INTRODUCTION

The frequency dependences of electrical modulus of the composites based on high-density polyethylene containing nanoparticles of α-$Al_2O_3$ before and after irradiation were experimentally studied to find the possibilities of controlled change in dielectric properties of composite materials. The electrical and mechanical properties of polymers can be modified by adding inorganic nanofillers. Incorporation of nanosized particles improves the electrical and dielectric properties of polymers. Nanosized particles are more attractive because of the interesting properties that arise from the dimensions associated with the large surface area. The choice of the type and nature of micro- and nanoparticles used as fillers is determined by the given electrical, mechanical [Fetouhi, L.; Martinez-Vega, J.; Petitgas, B. (2018), Tjong, S.C. (2006).] and thermal [Qi, C.; Yang, W.; He, F.; Yao, J. (2020)., Xia, Y.; Zhou, C.; Wang, W.; Wen, X.; He, S.; Chen, W. (7–10 June 2015)] properties of the composite material. The introduction of nano-alumina oxide into the HDPE matrix may result in changes to the dielectric properties, conductivity, and relaxation behavior. Therefore, investigating the electric modulus as a function of frequency and temperature in this composite system is essential for unraveling the underlying mechanisms and potential applications in electrical devices.

## RESEARCH METHOD

The real and imaginary parts of the electric modulus as a function of frequency for different volume percentage (up to 10%) of α-$Al_2O_3$ in different doses (0 kGy,50 kGy,200 kGy) reported. Measurements were made in the 25-$10^6$Hz frequency range, at room temperature for examined systems is presented. The value of M′ increase with frequency up to 2*$10^5$Hz (for pure HDPE from 0.31 to 0.34, for 3% composites from 0.30 to 0.32, for 10% from 0.27 to 0.30), then deacrease to the end of frequency scale. As expected, the real part of electric modulus of HDPE and HDPE+ α-$Al_2O_3$ nanocomposites decrease with increase α-$Al_2O_3$ content: for 3% M′=0.32 and 10% M′=0.33. But value of M′ for 1% and 5% nanocomposites higher than pure HDPE( for 1% M′=0.33, for 5% M′=0.34).After 50 kGy exposure dose value of M′ decrease than 0 kGy irradiation for all tested composite system. The reduction in the values of M′ with increasing dose results from the increase in the mobility of the polymer segment and charge carriers. The real part of electric modulus increases slowly up to $10^3$Hz, then increases high rate in comparison previous frequencies up to 2*$10^5$Hz and obtaion maximum value then decrease end to the frequency scale. The value of M′ decreases with an increase in volume content α-$Al_2O_3$ in the base mixture as a result of increase of the real part of complex dieletric permittivity and nature of all curves are similar. For all the studied composite samples there is a transition from low values to high ones, which implies the relaxation process. The value of M′ for pure HDPE decreases 1.76 times (from 0.300 to 0.176) after 50 kGy irradiation. The maximum value of M′ for pure HDPE is 0.2. At 200 kGy exposure dose value of the real parts of

electric modulus for HDPE and HDPE+ 10%α-$Al_2O_3$ are close to each other, 0.33 and 0.34 respectively. The nature of curve remains the same for HDPE+ 10%α-$Al_2O_3$ but peak shifts to high frequency ($10^5$Hz) after irradiation which can be attributed to the release of more trapped charge carriers. The M′of other samples show a plateau in intermediate frequency ($5*10^2$ -$2*10^5$Hz) range and gets maximum value at $10^5$Hz then decrease to the end of the frequency range.

The frequency dependence of the M′′ in alternating fields for pure HDPE and HDPE+ x% α-$Al_2O_3$ composite containing different amount of filler at D=0 kGy it is found that M′′ value firstly decrease with increase of frequency within (25-$10^3$Hz) frequency range, then remain constant intermediate frequency range $10^3$ -$10^5$Hz for all examined system, for 3% composites the value of M′′increases from 0.003 to 0.009 (3times). At D=50 kGy exposure dose spectra of M′′ exbihit electric modulus relaxation peak around $10^4$Hz which is attributed to PE local chain motion. The value of M′′ decreases at 25-$10^3$ Hz frequency range, then increase up to $5*10^3$ Hz and $10^4$Hz, respectively , with the increase frequency value of M′′ almost same for all examined system. It should be noted that, with increasing irradiation dose up to 50kGy the value of M′′ increase 1.4 times measured at 25Hz frequence than 0 kGy, for HDPE M' increases from about 0.007 to 0.005. After 200kGy irradiation peaks shifts to low frequency range in a 0, 1 and 3% composites. The value of M" for 10% composites decreases from 0.25 to 0.005 and peak observed at $5*10^6$Hz.

**CONCLUSION**

İn summary, the dielectric parameters of composites significantly depend on both the α-$Al_2O_3$ concentration in the polymer and the frequency of the electric field. At lower frequencies, a prominent relaxation peak is observed, indicating the presence of a relaxation process within the material.

**REFERENCES**

6. Fetouhi, L.; Martinez-Vega, J.; Petitgas, B. (2018). Electric conductivity, aging and chemical degradation of polyesterimide resins used in the impregnation of rotating machines. IEEE Trans. Electr. Insul. 25, 294–305.

7. Tjong, S.C. (2006). Structural and mechanical properties of polymer nanocomposites. Mater. Sci. Eng. R Rep. 53, 73–197.

8. Qi, C.; Yang, W.; He, F.; Yao, J. (2020). The Thermal Properties and Degradability of Chiral Polyester-Imides Based on Several l/d-Amino Acids. Polymers 12, 2053.

9. Xia, Y.; Zhou, C.; Wang, W.; Wen, X.; He, S.; Chen, W. (7–10 June 2015); Developing a novel environmental friendly polyester-imide impregnating resin. In Proceedings of the IEEE Electrical Insulation Conference (EIC), Seattle, WA, USA, 551–554.

# FREQUENCY DISPERSION OF DIELECTRIC PROPERTIES OF γ-IRADIATED HDPE/$SiO_2$ NANOCOMPOSITES

**NABIYEVA A.N., ISMAYILOVA R.S., GULIEV M.M., ALIEV N.SH.,MEHDIYEVA N.N.**

Institute of Radiation Problems of SEM
Radiation physics of polymer and electroactive materials
*aysel.nabiyeva21@gmail.com*
*nmehdiyeva@beu.edu.az*
BAKU, AZERBAIJAN

**ABSTRACT**

The effect of γ-irradiation and thermoelectret state on HDPE/α-SiO2 nanocomposite samples was studied. It was determined that after irradiation, HDPE and the composites based on it (HDPE+α-$SiO_2$) become thermoelectrets, the growth of $\varepsilon'$ in them is mainly explained by the increase in the degree of polarization of the samples.

**KEYWORDS: NANOCOMPOSITE, irradiation, thermoelectret**

**İNTRODUCTİON**

In this work, the frequency (25-$10^6$Hz) dependences of the actual ($\varepsilon'$) dielectric constant of high-density polyethylene (HDPE) and thermoelectrets of the HDPE/α-$SiO_2$ composite system before and after γ-irradiation were studied. The absorbed dose was 0; 200 kGy. HDPE/α-$SiO_2$ composites are obtained from a homogeneous mixture of powders (HDPE) and amorphous silicon dioxide (α-$SiO_2$) by hot pressing.

**RESEARCH METHOD**

To obtain a thermoelectret, samples of HDPE and HDPE+x% α-$SiO_2$ were heated to $100^0$C and kept at this temperature between the electrodes in an electric field for 30 minutes. Then it was allowed to cool to room temperature, after which the electric field was removed. The surface charge density was measured by the compensation method.

Based on our research, we have determined that the value of $\varepsilon'$ on the frequency dependence changes depending on the concentration of the filler. In the studied range $\varepsilon'$ of the original HDPE and the HDPE+1%α-$SiO_2$ composite remains practically constant with increasing frequency until the end of the frequency scale. With an increase in filler concentration to 5%vol. α-$SiO_2$ $\varepsilon'$ measured at a frequency of 25Hz increases by approximately 1.97 times compared to the polymer matrix. For nanocomposites with sample concentrations of 3 and 5%vol. α-$SiO_2$ with increasing frequency, the value of $\varepsilon'$ with increasing frequency of $10^4$Hz decreases by approximately 1.61 and 1.98 times. And the parameter $\Delta\varepsilon'$=($\varepsilon_c$-$\varepsilon_\infty$) the total width of the dispersion turns out to be $\Delta\varepsilon'$=2.27 and $\Delta\varepsilon'$ =3.56, respectively. In the studied frequency range, the value of $\varepsilon'$ decreases with increasing frequency, respectively, to $10^4$ Hz, then the rate of decrease slows down and remains constant until the end of the frequency scale ($10^6$ Hz) [ S.C.Tjong. (2006) ].

After thermoelectrification of the samples, the nature of the dependence $\varepsilon'=f(\nu)$ remains the same, however, for nanocomposites HDPE + 5% α-$SiO_2$ after a frequency of 1 kHz, the value $\varepsilon'$ turns out to be less than $\varepsilon'$ for other nanocomposites. It should be noted that the value of $\varepsilon'$ for the original samples at low frequencies is greater ($\varepsilon'$ = 6.38) than compared to $\varepsilon'$ of thermoelectrified samples ($\varepsilon'$ = 3.81).

After irradiation D=200 kGy, depending on $\varepsilon'=f(\nu)$, the following changes are observed: 1. In samples with 1;3% vol. the $\varepsilon'$ value decreased from 5.34 to 2.52, and the frequency dependence was not observed in all frequency ranges; 2. After irradiation of thermoelectret samples 0 and 3% vol. $\varepsilon'$ increased slightly (for 0% - from 2.85 to 3.02; for 3% - from 2.52 to 4.63), but frequency dependence was not observed; 3. After irradiation for samples 1 and 5% vol. the value of $\varepsilon'$ at low frequencies increases (from $\varepsilon'$=7.9 to $\varepsilon'$=9.79), and then decreases with its increase to $10^5$Hz and stabilizes.

## CONCLUSION

Based on a preliminary analysis of the results obtained, we can conclude that after irradiation, HDPE and composites based on it (HDPE/α-$SiO_2$) become thermoelectrets; the increase in $\varepsilon'$ in them can be explained mainly by an increase in the degree of polarization of the samples (S.Fores, 2011).

## REFERENCES

S.C.Tjong. (2006). Structural and mechanical properties of polymer nanocomposites. Materials Science and Engineering. R. 53,73-197.

S.Fores. (2011). Frequency dependence of the electrical and dielectric constants of polycarbonate (Makrofol-E) film under the effects of γ-radiation. Nat.Center of Radiation Research and Technology (NSRR), AEA, Nasr City, Egypt, **3**, No12, 1034-1039.

# HEMOQLOBİNİN HİDROGEN PEROKSİDLƏ İNDUKSİYA EDİLMİŞ OKSİDLƏŞMƏSİ ZAMANI NATRİUM NİTRİTİN HEMİN OKSİDLƏŞDİRİCİ DESTRUKSİYASINA TƏSİRİNİN KONSENTRASİYADAN HEMİN FLÜORESSENSİYA ANALİZİ

**Samirə Həsənli**

Bakı Mühəndislik Universiteti
hsnsamiraa@gmail.com
BAKI, AZƏRBAYCAN

## XÜLASƏ

İşdə müxtəlif konsentrasiyalarda natrium nitritin həm autoksidləşmə rejimində, həm də hidrogen ekzoperoksidlə induksiya edilmiş rejimdə hidrogen peroksidlə stimulyasiya olunmuş oksidləşmə proseslərinin inkişafına təsiri nəzərdən keçirilmişdir. Bu oksidləşmə hemoglobin heminin parçalanması modelində izlənildi. Bu deqradasiya flüoressensiya edən hem deqradasiyası piqmentlərinin yığılması ilə müşayiət olundu. 0,5-1,0 mM konsentrasiya diapazonunda natrium nitrit hemin oksidləşdirici deqradasiyasına inhibitor olaraq təsir göstərmişdir. Bu proses 2 həyəcanlaşma $\lambda_{321}$ və $\lambda_{465}$ və 2 emissiya maksimumuna $\lambda_{460}$və $\lambda_{525}$ malik olan flüoressensiya intensivliyinin azalması ilə ifadə edildi.

***Açar sözlər:*** deqradasiya, flüoressensiya, spektrofotometr, flüorimetr

## GİRİŞ

Ətraf mühitin antropogen çirklənməsinin göstəricilərindən biri də sənaye və kimya istehsalının intensiv artması, nəqliyyat vasitələrinin, kənd təsərrüfatı, qida sənayesinin kimyalaşmasında istifadə olunan azot birləşmələridir. Azotun oksigen tərkibli birləşmələri olan nitrat və nitritlər geniş yayılmış ətraf mühit çirkləndiriciləri kateqoriyasına aiddir.

Azot gübrələrinin qeyri-rasional istifadəsi bitki mənşəli qida məhsullarında nitrobirləşmələrin yüksək səviyyədə olması insan və heyvanların nitrat-nitrit intoksikasiyalarının birinci dərəcəli mənbəyidir. Uzun müddət və həddindən artıq istifadə olunan azot gübrələri nitratların suda və torpaqda toplanmasına səbəb olur. Tarlalarda onların yuyulub təbii su mənbələrinə axması, həmçinin azot oksidlərinin qrunt sularına düşməsi içməli sularda nitratların artmasına səbəb olur. İnsanlar üçün təhlükəli nitrat mənbəyi həmçinin atmosfer havasına atılan kirli tüstülər, sənaye tullantılarıdır. İnsan orqanizminə həddindən artıq nitrobirləşmələrin daxil olması qida sənayesində boyamaq üçün, ətin,

balığın, kolbasa məmulatlarının dadını yaxşılaşdırmaq, qurutmaq üçün konservləşdirmə və yüksək termiki kulinar işləmlərində istifadəsi ilə bağlıdır.

Beləliklə, qidanın, suyun və tənəffüs etdiyi havanın tərkibi ilə insan orqanizminə daxil olan azot maddələrinin ümumi yükü, əhəmiyyətli dərəcədə fizioloji həddi aşa bilər.

**TƏDQİQAT METODU**

*Materiallar*. İşin əsas tədqiqat obyekti insan qanından alınan eritrositlərdir. Bununla yanaşı, müxtəlif miqdarda və konsentrasiyalarda Natrium-fosfat buferi ($Na_2HPO_4$), $KH_2PO_4$, Natrium-xlorid məhlulu, Natrium-nitrit ($NaNO_2$) kimi materiallardan istifadə edilmişdir. Təcrübə zamanı cihaz olaraq, çarpaz işıq filtrləri olan flüorimetr (FAS-1, SSRİ), laborator sentrufuqasından "Type 310, Poland" və "SF-46, Rusiya" spektrofotometrindən və "Universal İonomer EV-74" pH-metrindən istifadə olunub.




*Qan və onun tərkib hissələrin (eritrositlərin) alınması.* Donor qanı kubital venadan steril şprislə toplandıqdan sonra antikoaqulyant kimi tərkibində heparin (200 vahid/ml) olan xüsusi sınaq borulara yerləşdirildi. Heparinləşdirilmiş qanı olan nümunələr sentrifuqa borularına köçürüldü, əvvəl laborator tərəzidə cüt-cüt balanslaşdırıldı. Sonra plazmadan və yuxarı leykosit layından, həmçinin digər komponentlərindən təmizləmək üçün 2000 dövr/dəqiqədə 10 dəqiqə ərzində sentrifuqadan keçirildi. Plazmadan tam təmizləmək üçün eritrositar kütləni 3 dəfə 5 həcm fosfat-salin buferlə (PBS, 0,15 M NaCl ilə hazırlanmış) ilə yuyuldu.

Daha sonra *eritrosit suspenziyası* hazırlandı. Bunun üçün eritrositar kütləni 0,05 M fosfat-salin buferlə (PBS, 0,15 M NaCl ilə hazırlanmış) ilə durulaşdırıldı (hematokrit 10%), pH 7,4 və antikoaqulyant kimi 0,1 mM EDTA istifadə olundu.

*Eritrosit hemolizatın hazırlanması*: yuyulmuş eritrositlərin çöküntüsündən 100 mkl götürüldü və 1:9 (hematokrit 10%) nisbətində soyudulmuş (4°C-dən çox olmayan) distillə su ilə durulaşdırıldı. Bu, qırmızı qan hüceyrələrinin hemoliz prosesini sürətləndirmək üçün lazımdır. Hemolizat vaxtaşırı 5 dəqiqə çalxalandı və sonra stroma və dağılmamış hüceyrələri çökdürmək məqsədilə 3000 dövr/dəqiqədə 30 dəqiqə ərzində sentrifuqadan keçirildi. Şəffaf hemolizat buz üzərində qoyulmuş sınaq borusuna tökülür və sonrakı işlərdə istifadə olunur.

*Eritrosit hemolizatında zülalın miqdarının təyini üçün spektrofotometrik üsul.* Bu üsul aromatik amin turşularının (triptofan və tirozin) 280 nm-də maksimum udma ilə ultrabənövşəyi işığı udmaq qabiliyyətinə əsaslanır. Beləliklə, bu dalğa uzunluğunda optik sıxlığı ölçməklə, məhlulda mövcud olan zülalın miqdarını mühakimə etmək olar.

Təzə hazırlanmış hemolizatdan 50 µl götürüldü və 5 ml distillə edilmiş su ilə seyreltildi (101 dəfə durulaşma). Sonra nümunələr qalınlığı 10 mm olan kyuvetdə yerləşdirildi və 280 və 260 nm-də spektrofotometrdə ölçmələr aparıldı. Nəzarət kimi distillə su istifadə edildi. Gördüyünüz kimi, burada iki dalğa uzunluğunda ölçmələr aparırıq. Nəzərə alsaq ki, nuklein turşularının və nukleotidlərin olması zülalın bu üsulla təyin edilməsinə mane olur, onların təsiri optik sıxlığı təkcə 280 nm-də deyil, həm də 260 nm-də ölçməklə aradan qaldırıla bilər və buna görə də ölçmələr iki dalğa uzunluğunda aparılmışdır. Sonra zülalın miqdarı aşağıdakı düsturla hesablanır:

$$\frac{mq}{ml} = 1{,}55*A_{280} - 0{,}76*A_{260},$$

və bu düsturla əldə edilən nəticə 101-ə vurulur (yəni, hemolizatın ilkin olaraq durulaşdığına qədər vurulur)..

**NƏTİCƏLƏR**

Eritrositlər daim oksigenlə təmasda olurlar. Onların təkamülü zamanı oksidləşdiricini idarə edən effektiv AO sisteminin bərpa balansı formalaşmışdır. Bu vəziyyətdə aparıcı rol AO fermentlər sisteminə aiddir, SOD, CAT, GPX, PRDX-2 və s. ibarətdir. Bu fermentlər rejimdə işləyir tamamlayıcılıq və oksidləşdirici təsirin gücündən asılı olaraq onların AO-ya töhfəsi müdafiə dəyişə bilər. (Nagababu 2003, Nagababu 2013) Peroksidin rolunu qiymətləndirmək flüoressensiyanın intensivliyinə görə hemin oksidləşdirici deqradasiyasının inkişafında hidrogen əsas antiperoksid fermentlərinin fəaliyyətinin inhibitorlarından istifadə etdik: CAT, GPX, PRDX-2 inkubasiya mühitində 0,1 ilə 1,0 $NaNO_2$ azid arasında yekun konsentrasiyası ilə CAT üçün natrium ($Na_3N$) və GPX aktivliyinin inhibitorları kimi, PRDX-2 yodoasetatamid $G_4H_4JNO$ (4 a.4 b). Bu ferment fəaliyyətlərinin deqradasiyaya töhfəsini aradan qaldırmaq hidrogen peroksid göstərdi ki, həm eritrositlərin suspenziyasında, həm də hemolizatda, flüoressensiya intensivliyinin artması (şəkil 3.2. və 3.3.).






Şəkil 3.2. $H_2O_2$-nin bolus (yüksək doza) konsentrasiyasının hemolizatın inkubasiyası zamanı flüoressensiyanın intensivliyinə təsiri. (İnkubasiya şərtləri: 0,5 mM PB, pH 7.4, 37 °C, 1 saat ərzində)






Şəkil 3.3. $H_2O_2$-nin bolus (yüksək doza) konsentrasiyasının eritrosit suspenziyasının inkubasiyası zamanı flüoressensiyanın intensivliyinə təsiri. (İnkubasiya şərtləri: 0,5 mM PBS, pH 7.4, 37 °C, 1 saat ərzində)

Bundan əlavə, məlum oldu zirvəsi olan zolağın flüoressensiya intensivliyi – λ=465 nm (həyəcanlanma) (λ=321 nm emissiya) və λ=525 nm (həyəcanlanma) (müvafiq olaraq λ=465 nm emissiya) pik nöqtəsi olan flüoressensiya ilə müqayisədə daha yüksək olur. Bu rəqəmlərin müqayisəsi də göstərir ki, hemolizat üçün flüoressensiya intensivliyi eritrosit suspenziyasından əhəmiyyətli dərəcədə yüksəkdir, bu, qoruyucu membran mexanizminin mövcudluğunu göstərir, buna görə də maksimumun spesifikliyi ilə əlaqədardır. Buradan da belə çıxır ki, flüoressensiya maksimumun spesifikliyinə görə hemoglobinin oksidləşdirici deqradasiyası məhz heme hissəsində baş verir.

**ƏSAS NƏTİCƏ**

1. Artıq minimum dozada olan nitritlər (0,001 mm x 30 dəq) MetHb yığılması şəklində hemoglobinə oksidləşdirici təsir göstərir, lakin bu, hemoglobinin hidrogen peroksidin səbəb olduğu oksidləşdirici deqradasiyasının inkişafına təsir göstərmir.
2. Göstərmək mümkün oldu ki, 0,5-1,0 mM-dan başlayaraq flüoressensiyanın hər iki sahəsində $\lambda_{emissiya}$ = 465 nm $\lambda_{həyəcanlanma}$ = 525 nm-də flüoressensiyanın intensivliyinin artımında ləngimə müşahidə olunur ki, bu da $NaNO_2$-nin 0,5-1,0 mM-də konsentrasiyasında autoksidləşmə zamanı hemoglobinin oksidləşdirici deqradasiyasının ciddi yavaşlaması olduğunu göstərir.

**ƏDƏBİYYAT**

1. DeMartino A.W., Kim-Shapiro D.B., Patel R.P., Gladwin M.T. Nitrite and nitrate chemical biology and signalling. Br J Pharmacol. 2019; 176(2): 228-245. Doi: 10.1111/bph.14484
2. May J.M., Qu Z.C., Xia L., Charles E.C. Nitrite uptake and metabolism and oxidant stress in human erythrocytes. Am. J. Physiol. Cell. Physiol. 2000; 279(6): 1946−1954. Doi: 10.1152/ajpcell.2000.279.6.C1946
3. A.M. Allahverdiyev, M.İ. Bağırova.“ Qanın labrator tədqiqinin klinik-diaqnostik əhəmiyyəti”. Bakı-2003.
4. a Nagababu E., Chrest F.J., Rifkind J.M. Hydrogen peroxideinducedheme degradation in red blood cells: the protective roles of catalase and glutathione peroxidase. Biochim.Biophys. Acta. 2003; 1620(1−3): 211−217. Doi: 10.1016/s0304-4165(02)00537-8

4. b E.Nagababu, JM Rifkind, S. Ramasamy, LB Ravi Hemoglobin redox reactions and oxidative stress Redox report 8(5), 234-237 76 2003.

5. Guseinov 2021, Institute of Physics Azerbaijan National Academy of Sciences Department of Physical, Mathematical and Technical Sciences

6. Vitturi D.A., Sun C.W., Harper V.M., Williams B., Medellin N., Chacko B.K., Peng N., Dai Y., Wyss J.M.,Townes T., Patel R.P. Antioxidant functions for the hemoglobin β93 cysteine residue in erythrocytes and in the vascular compartment in vivo. Free Radic. Biol. Med. 2013; 55: 119−129 doi10.1016/j.freeradbiomed.2012.11.003.

7. Levine RL, Garland D, Oliver CN, Amici A, Climent I, Lenz AG, Ahn BW, Shaltiel S, Stadtman ER. 1990. Determination of carbonyl content in oxidatively modified proteins. Methods Enzymol 186, 464-478.

# HÜLTEN ÜSTƏGƏL YUKAVA POTENSİALLARI ÜÇÜN KLEYN-FOK-QORDON TƏNLİKLƏRİNİN ANALİTİK HƏLLİ

**Dos. GÜLNARƏ QULİYEVA**
**gulnara.quliyeva@sdu.edu.az**

**Mag. SEVDA XƏLİLOVA**
sevdaxelilova95@gmail.com
SUMQAYIT DÖVLƏT UNİVERSİTETİ
TƏBİƏT ELMLƏRİ
AZƏRBAYCAN,SUMQAYIT

**XÜLASƏ**

Təqdim olunan işdə Hülten və Yukavanın birgə potensialı üçün Kleyn -Fok-Qordon (KFQ) tənliyinin analitik həlli verilmişdir. Həm relyativistik kvant mexanikasında, həm də qeyri-relyativistik kvant mexanikasında bu potensiallar geniş istifadə olunur. Ümumiyyətlə, eksponensial potensial modelləri həmişə diqqəti cəlb etmiş və müxtəlif fiziki sistemlərdə, o cümlədən kvant kosmologiyası, nüvə fizikası, molekulyar fizika, zərrəciklər fizikası və kondensasiya olunmuş maddə fizikasında intensiv şəkildə istifadə edilmişdir. Hülten, Morse, Manninq-Rosen, Wood-Saxon, Eckart və Rosen-Morse potensialları daxil olmaqla çoxlu sayda eksponensial tipli potensiallar tədqiq edilmiş və bağlı vəziyyət üçün bəzi analitik həllər əldə edilmişdir.

Tədqiq etdiyimiz işdə Nikiforov-Uvarov metodu tətbiq olunmuşdur. Qeyd edək ki, Nikiforov-Uvarov (NU) üsulunda ikinci tərtib diferensial tənliklərin həlli hiperhəndəsi tipli tənliklərlə ifadə olunur ki, bu da böyük praktiki əhəmiyyətə malikdir. Bu məsələləri ardıcıl etmək üçün skalyar, vektorial potensiallı sahədə Kleyn-Fok-Qordon (KFQ) tənliyini yazaq. Bu tənlik sferik koordinat sistemində yazılır. Hülten və Yukava potensiallarının şəkli verilmişdir. Biz işimizdə hər iki potensialı ortaq işlətmişik. Hülten üstəgəl Yukava potensialından istifadə etməklə Kleyn-Fok-Qordon (KFQ)tənliyini yazaq. Orbital kvant ədədinin $l \neq 0$ qiymətində enerjinin və uyğun olaraq radial dalğa funksiyasının analitik ifadəsi alınır. Aldığımız ifadələr hiperhəndəsi funksiyalarla ifadə olunmuşdur.

**AÇAR SÖZLƏR:** Kleyn-Fok-Qordon tənliyi, Hülten və Yukava birgə potensialı, Nikiforov - Uvarov metodu.

## ANALYTICAL SOLUTION OF THE KLEIN-FOCK-GORDON EQUATION FOR THE LINEAR COMBINATION OF THE HULTHÉN AND THE CLASS OF YUKAWA POTENTIALS

**Abstract**

In this study, the bound state's solution of the modified Klein-Fock-Gordon equation is found for the newsupposed combined Hultén potential and the Yukawa class potentials. The analytical

expressions of the energy eigenvalue and the corresponding radial wave functions are obtained for any orbital quantum number. The obtained eigenfunctions are expressed in terms of hypergeometric functions.

**Keywords**: Klein-Fock-Gordon equation, Hülten and Yukawa joint potential, Nikforov-Uvarov method.

## GİRİŞ

Kvant mexanikasının sürətli inkişafı onu nəzəri fizikanın ayrı bir qolu olduğunu göstərdi. Müxtəlif potensiallar üçün dəqiq həlli olan məsələlər vacib hesab olunmağa başladı. Nüvə və elementar hissəciklər fizikasında eləcədə atom və molekul fizikası sahəsindəki tədqiqatlarda relyativistik və qeyri-relyativistik kvant mexanikası çərçivəsində potensial modellər hər zaman mühüm əhəmiyyət kəsb edir. Potensialın şəklindən asılı olaraq müxtəlif dalğa tənlikləri Şredinger, Kleyn- Fok- Qordon (KFQ), Relyativistik sonlu fərq tənliyi və Dirak tənliyini həll etmək olur[1]. Mors, Manning-Rosen, Hulten, Makarov, Yukava və s. potensialları həm relyativistik, həm də qeyri-relyativistik kvant mexaniksında geniş istifadə olunur .

Potensial modelinin əhəmiyyəti ilk növbədə nəzərdən keçirilən fiziki sistemin müəyyən xassələrinin nə dərəcədə yaxşı təsvir etməsi ilə müəyyən edilir. Potensial modelinin onun dəqiq həll olunan olmasıdır.

Dalğa tənliyinin, relyativistik və qeyri-relyativistik kvant mexanikasının dəqiq analitik həlli yalnız $V(r)$ potensilının məhdud sinfi üçün məlumdur.

Nikiforov-Uvarov (NU) üsulu ikinci tərtib diferensial tənliklərin həlli və onların hiperhəndəsi tipli tənliklərlə ifadə olunmasında böyük praktiki əhəmiyyətə malikdir. [6]. Eyni zamanda, müxtəlif eksponensial və hiperbolik potensiallar Nikiforov-Uvarov( NU) metodundan istifadə etməklə,həmçinin müxtəlif yaxınlaşmalardan istifadə etməklə analitik şəkildə həll edilir.

Ümumiyyətlə, eksponensial potensial modelləri həmişə diqqəti cəlb etmiş və müxtəlif fiziki sistemlərdə, o cümlədən kvant kosmologiyası, nüvə fizikası, molekulyar fizika, zərrəciklər fizikası və kondensasiya olunmuş maddə fizikasında intensiv şəkildə istifadə edilmişdir. Hülten, Morse, Manning-Rosen, Wood-Saxon, Eckart və Rosen-Morse potensialları daxil olmaqla çoxlu sayda eksponensial tipli potensiallar tədqiq edilmiş və bağlı vəziyyət üçün bəzi analitik həllər əldə edilmişdir.

**Nikiforov-Uvarov (NU) metodu**

Tədqiqatımızın əsas məqsədi Nikiforov-Uvarov (NU) metodundan istifadə etməklə, adi kvant mexanikası çərçivəsində Hülten potensialının və Yukava sinfinin xətti kombinasiyası üçün dəyişdirilmiş Kleyn-Fok-Qordon (KFQ) tənliyinin analitik həllidir. Məsələni həll etmək üçün $l \neq 0$ olduqda, potensialın mərkəzdənqaçma hissəsində xüsusi qiymətlər tapılır. $l \neq 0$ orbital kvant ədədinin istənilən qiyməti üçün enerji və müvafiq radial dalğa funksiyaları təyin edilir.

Nikiforov-Uvarov (NU) üsulu [6] formasına malik olan ikinci dərəcəli diferensial tənliyin həlli üçün uğurla istifadə olunur:

$$\chi''(s)+\frac{\tilde{\tau}(s)}{\sigma(s)}\chi'(s)+\frac{\tilde{\sigma}(s)}{\sigma^2(s)}\chi(s)=0 \quad (1)$$

Burada $\sigma(s)$, $\tilde{\sigma}(s)$ ikinci dərəcədən yüksək olmayan çoxhədlilər, $\tilde{\tau}(s)$ birinci dərəcədən yüksək olmayan çoxhədlidir. İndi $\chi(s)$ funksiya üçün aşağıdakı faktorizasiyanı götürsək.

$$\chi(s)=\phi(s)y(s)\,, \quad (2)$$

Bu zaman (1) tənliyi hiperhəndəsi tənlik şəklində yazılır:

$$\sigma(s)y''(s)+\tau(s)y'(s)+\lambda y(s)=0\,, \quad (3)$$

Harada ki, $\tau(s)=\tilde{\tau}(s)+2\pi(s)$, burada $\tau(s)<0$ qəbul olunur. $\pi(s)$ funksiyası aşağıdakı kimi müəyyən edilir:

$$\pi(s)=\frac{\sigma'(s)-\tilde{\tau}(s)}{2}\pm\sqrt{\left(\frac{\sigma'(s)-\tilde{\tau}(s)}{2}\right)^2-\tilde{\sigma}(s)+k\sigma(s)} \quad (4)$$

k- sabit paramerdir. $\pi(s)$ polinom olduğu üçün kökaltı ifadə hər hansı bir polinomun kvadratı şəklində təsvir olunmalıdır. Bunu da (4) ifadəsindən kvadrat kök diskriminantını sıfıra bərabərləşdirməklə müəyyən edilir. Aşağıdakı ifadədən istifadə edərək enerjini müəyyən edə bilərik.

$$\lambda = k + \pi'(s) = -n\tau'(s) - \frac{n(n-1)}{2}\sigma''(s) \quad (5)$$

Çoxhədli həllər Rodrigue tənliyi ilə verilir:

$$y_n(s) = \frac{C_n}{\rho(s)}\frac{d^n}{ds^n}\left[\sigma^n(s)\rho(s)\right], \quad (6)$$

$C_n$ -normallaşma sabitidir. $\rho(s)$ aşağıdakı tənliklə müəyyən olunan çəki funksiyasıdır.

$$(\sigma(s)\rho(s))' = \tau(s)\rho(s). \quad (7)$$

Digər tərəfdən $\phi(s)$ funksiyası aşağıdakı şərti ödəyir:

$$\frac{\phi'(s)}{\phi(s)} = \frac{\pi(s)}{\sigma(s)} \quad (8)$$

**Hülten üstəgəl Yukava potensialı üçün Kleyn-Fok-Qordon (KFQ) tənliyinin analitik həllidir.**

Skalyar $S(r)$, vektorial $V(r)$ potensiallı sahədə Kleyn-Fok-Qordon (KFQ) tənliyini yazaq. Bu tənliyi sferik koordinat sistemində yazaq ( atom vahidləri $c = \hbar = 1$)

$$[-\nabla^2 + (M + S(r))^2]\psi(r,\vartheta,\varphi) = [E - V(r)]^2\psi(r,\vartheta,\varphi) \quad (9)$$

Burada, M-skalyar hissənin sükunət kütləsidir, E- relyativistik hissəciyin enerjisidir, $\psi(r,\vartheta,\varphi)$- sferik koordinat sistemində dalğa funksiyasıdır. Bu dalğa funksiyasını aşağıdakı kimi yazmaq olar:

$$\psi(r,\vartheta,\varphi) = \frac{\chi_{nl}(r)}{r}Y_{lm}(\vartheta,\varphi) \quad (10)$$

Burada, $Y_{lm}(\vartheta,\varphi)$- sferik harmonik funksiyadır.

(9) tənliyini (10) tənliyində nəzərə alsaq ,Kleyn-Fok-Qordon (KFQ) tənliyi aşağıdakı şəklə düşəcək:

$$\chi''(r) + \left[E^2 - M^2 - 2\big(MS(r) + EV(r)\big) + \big(V^2(r) - S^2(r)\big) - \frac{l(l+1)}{r^2}\right]\chi(s) = 0. \quad (11)$$

**Bu işdə əsas məqsəd Nikiforov- Uvarov (NU) metodundan istifadə etməklə, Hülten potensialının xətti kombinasiyası üçün (9) düsturunun analitik həlli və əlaqəli halda Yukavi sinfini tapmaqdır.**

Hülten potensialından atom və molekulyar fizikada, kondensə olunmuş maddə və hissəciklər fizikasında və digər tədqiqat sahələrində istifadə olunur. Bu potensiallı sahədə olan zərrəciklər üçün kvant effekti böyük maraq kəsb edir.

Hülten potensialı aşağıdakı şəklə malikdir:

$$V(r) = -\frac{Ze^2\delta e^{-\delta r}}{1 - e^{-\delta r}} \quad (12)$$

Burada,$\delta$-ekranlaşma parametridir. Z- Mendeleyev cədvəlində atomun sıra nömrəsidir.

Hülten potensialı üçün radial Kleyn-Fok-Qordon ( KFQ) tənliyi yalniz $l = 0$ qiyməti üçün analitik həll olunur.

Koordinatın r-in kiçik qiymətlərində radial Hülten potensialı özünü Kulon potensial kimi aparır. r-in böyük qiymətlərində isə eksponensial şəkildə azallaraq ,Kulon potensialından daha az olur.

Bu potensial həm də iki atomlu molekulun titrəyişlərini təsvir etmək üçün istifadə olunur və digər fiziki hadisələr üçün uyğun modeli təmin edir.

İkinci potensialımız nuklonların güclü qarşılıqlı təsirlərini çox yaxşı təsvir edən effektiv qeyri-relativistik potensial kimi Yukava [2] tərəfindən təklif edilən Yukava potensialıdır. Yukava potensialı eksponensial faktora görə $1/r$-dən daha tez azalır. Yukava potensialı aşağıdakı şəklə malikdir:

$$V(r) = -\frac{V_0 e^{-\delta r}}{r} - \frac{V'_0 e^{-2\delta r}}{r^2} \quad (13)$$

Burada, $V_0$, $V'_0$- potensialın dərinliyini göstərir. Hülten potensialını və Yukava sinfini ümumiləşdirmək üçün biz Yukava potensialının unikal yaxınlaşmasından istifadə edirik.

$$\frac{1}{r} \approx \frac{2\delta e^{-\delta r}}{(1-e^{-2\delta r})} \quad (14)$$

$$\frac{1}{r^2} \approx \frac{4\delta^2 e^{-2\delta r}}{(1-e^{-2\delta r})^2} \quad (15)$$

Buna görə də, Hülten və Yukava sinif potensiallarının cəmi kimi təmsil oluna bilər:

$$V(r) = -\frac{2Ze^2\delta e^{-2\delta r}}{(1-e^{-2\delta r})} - \frac{2\delta V_0 e^{-2\delta r}}{(1-e^{-2\delta r})} - \frac{4\delta^2 V'_0 e^{-4\delta r}}{(1-e^{-2\delta r})^2} =$$
$$= -\frac{(A+B)e^{-2\delta r}}{(1-e^{-2\delta r})} - \frac{Ce^{-4\delta r}}{(1-e^{-2\delta r})^2} \quad (16)$$

$$A = 2Ze^2\delta,\ B = 2\delta V_0,\ C = 4\delta^2 V'_0$$

Bu iki potensialın xətti kombinasiyası deformasiyaya uğramış nüvə cütünün qarşılıqlı təsirini və potensial sahədə hissəcik üçün spin-orbit birləşməsini öyrənmək üçün istifadə edilə bilər. Bu potensialın öyrənilməsində vacib məqamlardan biri də harmonik sistem daxilində rəqslərin təsvir olunmasıdır. Bundan əlavə, bu potensial digər fiziki hadisələr üçün əlverişli model kimi istifadə edilə bilər.

(16) potensialın ifadəsini (11) tənliyində nəzərə alsaq, Kleyn-Fok-Qordon ( KFQ )tənliyi aşağıdakı şəklə düşəcək:

$$\frac{d^2\chi}{dr^2} + \left[E^2 - M^2 - \frac{4\delta^2 l(l+1)e^{-2\delta r}}{(1-e^{-2\delta r})^2} + \right.$$
$$\left. +2(M+E)\frac{(A+B)e^{-2\delta r}}{(1-e^{-2\delta r})} + 2(M+E)\frac{Ce^{-4\delta r}}{(1-e^{-2\delta r})^2}\right]\chi(r) = 0 \quad (17)$$

(17) tənliyini Nikiforov-Uvarov metodu tətbiq edərək həll etmək üçün onu aşağıdakı şəklə salaq. (17) tənliyini hiperhəndəsi tənliyə gətirmək ünçün $s = e^{-2\delta r}$ əvəzləməsi aparaq. Nikiforov-Uvarov metodundan istifadə etməklə enerji spektri üçün ifadə almış oluruq:

$$E^2 - M^2 = -\left[\frac{\alpha^2 - l(l+1) - \frac{1}{2} - n(n+1) - (2n+1)\sqrt{\frac{1}{4} + l(l+1) - \beta^2}}{\frac{1}{2} + n + \sqrt{\frac{1}{4} + l(l+1) - \beta^2}}\delta\right]^2 \quad (18)$$

Burada

$$\alpha^2 = \frac{(M+E)(A+B)}{2\delta^2}$$

$$\beta^2 = \frac{(M+E)C}{2\delta^2}$$

Hülten üstəgəl Yukava potensialının radial hissəsini təyin etmək üçün $\chi(s)$ aşağıdakı kimi ayıraq

$$\chi(s) = \phi(s)y(s) \quad (19)$$

$\phi(s)$ ifadəsi (8) şəklində verilib. (8) tənliyini həll etmək üçün $\phi(s)$

$$\phi(s) = s^{\varepsilon}(1-s)^{\frac{1}{2}+\sqrt{\frac{1}{4}+l(l+1)-\beta^2}} \quad (20)$$

$y_n(s)$ funksiyası isə Rodriqo düsturundan təyin edilir:

$$y_n(s) = \frac{C_n}{\rho(s)}\frac{d^n}{ds^n}\left(\sigma^n(s)\rho(s)\right) \quad (21)$$

$$\rho(s) = s^{2\varepsilon}(1-s)^{2\sqrt{\frac{1}{4}+l(l+1)-\beta^2}} \quad (22)$$

$$y_n(s) = \frac{C_n}{s^{2\varepsilon}(1-s)^{2\sqrt{\frac{1}{4}+l(l+1)-\beta^2}}}\frac{d^n}{ds^n}\left[s^{2\varepsilon+n}(1-s)^{n+2\sqrt{\frac{1}{4}+l(l+1)-\beta^2}}\right] \quad (23)$$

Bunu nəzərə alaraq

$$\frac{d^n}{ds^n}\left[s^{2\varepsilon+n}(1-s)^{n+2\sqrt{\frac{1}{4}+l(l+1)-\beta^2}}\right] = s^{2\varepsilon}(1-s)^{2\sqrt{\frac{1}{4}+l(l+1)-\beta^2}}P_n^{\left(2\varepsilon,2\sqrt{\frac{1}{4}+l(l+1)-\beta^2}\right)}(1-2s) \quad (24)$$

$y_n(s)$ funksiyası üçün yekun olaraq aşağıdakı ifadəni alarıq:

$$y_n(s) = C_n P_n^{\left(2\varepsilon, 2\sqrt{\frac{1}{4}+l(l+1)-\beta^2}\right)}(1-2s). \quad (25)$$

İndi (20)-ni və (25)-i (19)-da nəzərə alsaq radial dalğa funksiyası üçün aşağıdakı ifadəni alarıq:

$$\chi_n(s) = C_n s^{\varepsilon}(1-s)^{K} P_n^{(2\varepsilon, 2K-1)}(1-2s) \quad (26)$$

Burada $C_n$-normallaşma sabitidir.

$$K = \frac{1}{2} + \sqrt{\frac{1}{4} + l(l+1) - \beta^2} \quad (27)$$

Hipergeometrik funksiyanın köməkliyi ilə $\chi_n(s)$ üçün aşağıdakı ifadəni almış olarıq:

$$\chi_n(s) = C_n s^{\varepsilon}(1-s)^{K} \frac{\Gamma(n+2\varepsilon+1)}{n!\Gamma(2\varepsilon+1)} {}_2F_1(-n, 2\varepsilon+2K+n, 1+2\varepsilon; s). \quad (28)$$

$$\int_0^{\infty} |R(r)|^2 r^2 dr = \int_0^{\infty} |\chi(r)|^2 dr = 2\delta \int_0^1 \frac{1}{s} |\chi(s)|^2 ds = 1 \quad (29)$$

Normallaşma şərtindən istifadə etməklə $C_n$-normallaşma sabitini təyin edə bilərik.
Beləliklə ,biz

$$C_n = \sqrt{\frac{2\delta n!(n+K+\varepsilon)\Gamma(2\varepsilon+2K+n)\Gamma(2\varepsilon+1)}{(n+K)\Gamma(n+2K)\Gamma(2\varepsilon)\Gamma(n+2\varepsilon+1)}} \quad (30)$$

aldıq.

Beləliklə, biz Nikiforov-Uvarov (NU) metodundan istifadə etdik.Kleyn-Fok-Qordon (KFQ) tənliyinin analitik tənliyini yazdıq.Bu tənliyə daxil olan potensial -Hülten üstəgəl Yukava potensialının analitik həllini , $l \neq 0$ orbital kvant ədədinin istənilən qiyməti üçün enerji və müvafiq radial dalğa funksiyasının ifadəsini təyin etmiş olduq.

**ƏDƏBİYYAT**


1. Greiner, W. (2000). Relativistics Quantum Mechanics, Springer,Berlin ,3rd edition .

2. Ahmadov A.I, Aslanova S. M, Orujova M. S., Badalov S. V.(2021). Advances in High Energy Physics, Article ID8830063.

3. Ahmadov,A.I, Naeem M, Qocayeva M.V. and Tarverdiyeva V.A. (2018).”Analytical bound-state solutiouns of the Schrödinger equation for the Mannig – Rosen plus Hulthen potential within SUSY quantum mechanics,”International Journal of Moderin Physics A,vol. 33, no. 3, p . 1850021.

4. Ahmadov, A.I., Demirci,M. Aslanova, S. M, Mustamin, M. F.(2020). Physics Letters A, vol.384, no .12 ,p. 126372.

5.Aliyeva T. G. and Quliyeva G. G.(2021).Russian Physics Journal, Vol. 63, No. 12, 2141.

6.Nikiforov A. F. and Uvarov V. B.(1988). Special Functions of Mathematical Physics., Birkhäuser, Boston , Springer.

7.Yukawa H.(1935).”On the İnteraction of Elementary Particles.İ,”Proceedings of the Physico-Mathematical Society of Japan .3rd Series,vol.17,pp. 48-57.

# URAN AİLƏSİ KOMETLƏRİNİN DİNAMİK XÜSUSİYYƏTLƏRİ

**H. Ə. Qasımov[1], Y. Ə. Turablı[2], A. E. Nuruyeva[2]**

Bakı Mühəndislik Universiteti

**XÜLASƏ**

Tədqiqat işi afelilərinin konsentrasiyası Uran planetinin orbitinin yaxınlığında olan kometlərin planetlə qarşılıqlı təsirinə həsr olunmuşdur. Kometlərin orbit elementlərini və Uran planetinə görə Tisserand parametrlərini təhlil edərək Uran komet ailəsinin necə formalaşması müəyyən olunmuşdur. Afelisi 17 < Q < 23 a.v. intervalında olan 31 kometin Tisserand parametri hesablanmışdır. Beş kometin orbit müstəvisinin ekliptika müstəvisinə olan meyl bucağı $90^o$-dən böyük olduğuna görə onlar Günəş ətrafında tərsinə hərəkət edirlər. Altı kometin Tisserand parametrinin ikidən kiçik olması planetin təsiri ilə uzun dövrlü kometlərin periodik kometə çevrilməsi prosesinin getdiyini göstərir.

**Açar sözlər: Uran planetinin komet ailəsi, Tisserand parametri, kometlərin dinamikası**

**ABSTRACT**

The research work is devoted to the interactions of comets with planet Uranus, whose aphelion is concentrated near the planet. By analyzing the orbital elements of comets and the Tisserand parameters according to the planet Uranus, it was determined how the Uranus family of comets was formed. The Tisserand parameter of 31 comets whose aphelion is in the interval 17 < Q < 23 AU was calculated. Five comets have retrograde motion around the Sun due to the inclination angle of the orbital plane to the ecliptic plane greater than $90^o$. The Tisserand parameter of six comets is less than two indicating the transformation of long-period comets into periodic comets is due to the influence of the planet.

**Key words: Uranus's family of comets, Tisserand parameter, dynamics of comets**

## GİRİŞ

Uran planeti, Günəşə yaxınlığına görə yeddinci planet, Günəş sistemində radiusuna görə üçüncü, kütləsinə görə dördüncü ən böyük planetdir. Uranın və Neptunun tərkibi eyni kimyəvi elementllərdən ibarətdir. Bu tərkib hissələri onları böyük qaz nəhəngləri Yupiter və Saturndan fərqləndirir. Bu səbəblə, alimlər Uran və Neptunu qaz nəhənglərindən ayırmaq üçün onları "buz nəhəngləri" kimi təsnif edirlər. Digər nəhəng planetlər kimi Uranın halqa sistemi, maqnitosferi və çoxlu sayda peyki vardır. Uran sisteminin digər planetlərdən fərqləndirən özünəməxsus konfiqurasiyası var. Onun fırlanma oxu yana əyilmiş şəkildədir və buna görə də, digər planetlərin ekvatorları olan bölgə onun şimal və cənub qütbləridir [1].

Uran planetinin təsir sferasında olan bəzi kometlər (95P/ Chiron kimi) ikili xüsusiyyətlər göstərir. Kometlərdən bəziləri asteroid kimi aşkar olunsada periheli keçidləri zamanı komet kimi fəallaşaraq, komet xüsusiyyətləri nümayiş etdirmişlər. Saturn ilə Uran planeti arasında yerləşən (bəzi müəlliflərə görə Asteroid qurşağı ilə Kuiper qurşağı arasında olan) kiçik göy cisimləri “kentavr” adı verilən yeni obyektlər sinfi kimi təsnifatlandırılır. 1977-ci ildə C. Kowal tərəfindən aşkar olunan 95P/ Chiron kentavrların ilk aşkar edilmiş üzvü oldu [2] .

Uranın özünə məxsus xüsusiyyətləri fonunda onun sisteminə daxil olan kometlərlə qarşılıqlı təsirini öyrənmək maraqlıdır. Kometlərin dinamik xüsusiyyətlərindən biri onların afelilərinin nəhəng planetlərin yaxınlığında cəmlənməsidir. Bu paylanmanın qeyri-bərabər olması statistik olaraq əsaslandırılmışdır [3]. Nəhəng planetlərin hər biri çoxlu sayda təbii peyklərə sahib olduğu kimi komet sisteminə də sahibdirlər. Afeli məsafələrinin statistik təhlilinə görə Yupiter komet sistemi 422, Saturn 169, Uran 31, Neptun 20 kometə sahibdir. Bu saylar şərtidir və hər il komet ailələrinə yeni üzvlər əlavə olunur. Nəhəng planetlərin komet ailələrinə sahib olmaları onların MOID-lərinə (Minimum Orbit Intersection Distance – Orbitlərin kəsişməsinin minumum məsafəsi) görə də yoxlanılmışdır [4]. Bu metodla 309 kometin Yupiterin, 69 kometin Saturnun, 6 kometin Uranın təsir sferasına daxil olduğu müəyyən olunmuşdur. Bu metodla Neptunun təsir sferasında komet müəyyən olunmamışdır.

Nəhəng planetlərin komet ailələrinin formalaşması prosesi Astronomiya elminin aktual məsələlərindəndir. Bu barədə bir çox tədqiqat işləri həyata keçirilmiş, müxtəlif hipotezlər irəli sürülmüşdür. Komet ailələrinin planetlərin "zəbtetmə" fəaliyyəti nəticəsində formalaşmasını Laplas və onun davamçıları təklif etmişlər [5]. Yipiter planetinin kometləri "zəbt" etmələri üçün Günəş mərkəzli bu bölgədən milyonlarla kometin keçməsi lazımdır. Bunun mümkün olmadığını Lagranj və davamçıları qeyd edərək eruptiv hipotezi təklif etmişlər [6]. Onlar, nəhəng planetlərin və ya onların buzlu peyklərində vulkanların baş verməsi nəticəsində kometlərin yarandığını irəli sürürlər. Daha sonralar kometlərin Günəş sisteminin yarandığı ilkin dövrlərindən qalan reliktiv materialdan [7] və ya asteroidlərdən əmələ gəlməsini [8] müdafiə edən tədqiqat işləri meydana gəlməyə başladı. Bu hipotezləri müxtəlif metodlarla yoxlamaqla kometlərin mənşə məsələsinə aydınlıq gətirilməsi vacib məsələlərdəndir. Bu işdə Uran komet ailəsinə mənsub olan kometlərin orbit elementlərini və Tisserand parametrlərini təhlil edərək ailənin formalaşması prosesi müəyyən edilməyə çalışılmışdır.

## TƏDQIQAT METODU

Tədqiqat işində afelisi Uran planetinin yaxınlığında cəmlənmiş, 2022-ci ilin sonunadək aşkar olunmuş 31 kometin məlumatlarından istifadə olunmuşdur. Kometlərin orbit elementləri NASA-nın Kiçik Göy Cisimləri verilənləri bazasından götürülmüşdür [9]. Həmin kometlərin orbit elementləri cədvəl 1-də verilmişdir.

**Cədvəl 1. Uran kometlərinin orbit elementləri**

| Sıra | Komet | e | a (a.v.) | q (a.v.) | i (dər) | Q (a.v.) | $P_{period}$ |
|---|---|---|---|---|---|---|---|
| 1 | 27P/ Crommelin | 0,91 | 9,23 | 0,74 | 28,96 | 17,72 | 28,07 |
| 2 | P/2002 B1 Linear | 0,77 | 9,91 | 2,27 | 51,02 | 17,56 | 31,24 |
| 3 | P/2002 CE10 Linear | 0,79 | 9,81 | 2,04 | 145,45 | 17,58 | 30,75 |
| 4 | P/2005 T4 Swan | 0,93 | 9,31 | 0,64 | 160,03 | 17,98 | 28,44 |
| 5 | 95P/ Chiron | 0,37 | 13,68 | 8,50 | 6,93 | 18,86 | 50,63 |
| 6 | P/2004 C1 Larsen | 0,62 | 11,56 | 4,35 | 28,91 | 18,77 | 39,35 |
| 7 | P/2017 Y3 Leonard | 0,87 | 9,86 | 1,27 | 27,58 | 18,45 | 30,99 |
| 8 | 55P/ Tempel-Tuttle | 0,90 | 10,33 | 0,97 | 162,48 | 19,70 | 33,24 |
| 9 | 166P/ Neat | 0,38 | 13,88 | 8,56 | 15,36 | 19,20 | 51,73 |
| 10 | P/2006 U7 Gibbs | 0,63 | 11,98 | 4,42 | 7,23 | 19,53 | 41,48 |
| 11 | P/2007 S2 Lemmon | 0,55 | 12,54 | 5,55 | 16,86 | 19,53 | 44,45 |
| 12 | P/2011 L1 McNaught | 0,79 | 11,03 | 2,24 | 65,51 | 19,82 | 36,66 |
| 13 | P/2013 D1Holvorcem | 0,78 | 11,22 | 2,46 | 10,09 | 19,99 | 37,62 |
| 14 | 38P/StephanOterma | 0,85 | 11,28 | 1,58 | 18,35 | 20,98 | 37,93 |
| 15 | 167P/ Cineos | 0,26 | 16,14 | 11,78 | 19,12 | 20,49 | 64,85 |
| 16 | P/2000 S3 Loneos | 0,77 | 11,69 | 2,66 | 25,16 | 20,71 | 39,97 |
| 17 | P/2006F2Christensen | 0,65 | 12,32 | 4,29 | 20,51 | 20,35 | 43,27 |
| 18 | P/2011 Y3 Boattini | 0,70 | 11,85 | 3,49 | 26,51 | 20,21 | 40,82 |
| 19 | P/2014 W9 Panstarrs | 0,85 | 11,16 | 1,58 | 10,63 | 20,74 | 37,32 |
| 20 | P/2015 D2 Panstarrs | 0,56 | 12,98 | 5,60 | 31,83 | 20,36 | 46,79 |
| 21 | P/2018 P5 Panstarrs | 0,64 | 12,74 | 4,57 | 7,25 | 20,90 | 45,47 |
| 22 | P/2013 U1 Catalina | 0,79 | 11,92 | 2,41 | 23,94 | 21,42 | 41,17 |
| 23 | P/2014 WChristensen | 0,86 | 11,38 | 1,48 | 98,31 | 21,27 | 38,41 |
| 24 | P/1998 G1 Linear | 0,82 | 12,09 | 2,13 | 109,71 | 22,06 | 42,09 |
| 25 | P/2013 C2 Tenagra | 0,43 | 16,05 | 9,13 | 21,34 | 22,97 | 64,33 |
| 26 | P/2018 A4 Panstarrs | 0,80 | 12,28 | 2,40 | 3,14 | 22,16 | 43,06 |
| 27 | P/2018 X3 Panstarrs | 0,78 | 12,42 | 2,69 | 43,36 | 22,14 | 43,78 |
| 28 | P/2018 S2 (TESS) | 0,61 | 14,2 | 5,47 | 64,22 | 22,94 | 53,54 |
| 29 | P/2020 S2 Panstarrs | 0,82 | 10,18 | 1,75 | 22,39 | 18,60 | 32,47 |
| 30 | P/2021 K1 (ATLAS) | 0,8 | 12,74 | 2,49 | 16,27 | 22,98 | 45,49 |
| 31 | P/2022 Y1 (Hogan) | 0,76 | 12,54 | 2,96 | 18,85 | 22,13 | 44,43 |

Kometlər orbitləri üzrə Günəş sisteminin mərkəzi bölgələrinə daxil olduqları zamanı onların orbit elementləri nəhəng planetlərin təsirinə məruz qalır. Dəyişməyən meyl bucağının, böyük yarımoxun və ekssentrisitetin funksiyası olan Tisserand parametridir. Tisserand parametri (və ya Tisserand sabiti) nisbətən kiçik cismin və daha böyük "həyacanlandıran" cismin bir neçə orbit elementinin (böyük yarımox, orbital ekssentrisitet və meyl bucağı) funksiyası olan sabitdir. Tisserand parametrindən müxtəlif növ orbitləri ayırd etmək üçün istifadə olunur. Termin adını [10] fransız astronomu F. Tisserandın şərəfinə adlandırılmış və kütlə baxımından çox fərqli olan məhdud üç cisim məsələsinin həllində istifadə olunur. Yupiter komet ailəsi üçün Tisserand parametri H. Qasımovun əvvəlki işlərində həyata keçirilmişdir [11]. Yupiter komet sistemi üçün bu parametrin orta qiyməti 2,84-ə, Neptun kometləri üçün 2,009 -ə bərabərdir. Kometlərin Uran planetinə görə Tisserand parametri (1) ifadəsi ilə hesablanmışdır.

$$T = \frac{a_p}{a} + 2cosi\sqrt{\frac{a}{a_p}(1-e^2)} \quad (1)$$

burada, $a_p$ - Uran planetinin orbitinin böyük yarımoxu, a-komet orbitinin böyük yarımoxu, e – komet orbitinin ekssentrisiteti, $i$- kometin meyl bucağıdır.

Hesablamanın nəticəsi cədvəl 2-də verilmişdir.

**Cədvəl 2. Uran kometlərinin Tisserand sabiti**

| Sıra | Kometlər | Tisserand sabiti |
|---|---|---|
| 1 | 27P/ Crommelin | 2,58 |
| 2 | P/2002 B1 Linear | 2,51 |
| 3 | P/2002 CE10 Linear | 1,23 |
| 4 | P/2005 T4 Swan | 1,58 |
| 5 | 95P/ Chiron | 2,96 |
| 6 | P/2004 C1 Larsen | 2,72 |
| 7 | P/2017 Y3 Leonard | 2,57 |
| 8 | 55P/ Tempel-Tuttle | 1,25 |
| 9 | 166P/ Neat | 2,89 |
| 10 | P/2006 U7 Gibbs | 2,81 |
| 11 | P/2007 S2 Lemmon | 2,82 |
| 12 | P/2011 L1 McNaught | 2,12 |
| 13 | P/2013 D1 Holvorcem | 2,65 |
| 14 | 38P/StephanOterma | 2,46 |
| 15 | 167P/ Cineos | 2,85 |
| 16 | P/2000 S3 Loneos | 2,53 |
| 17 | P/2006 F2 Christensen | 2,68 |
| 18 | P/2011 Y3 Boattini | 2,61 |
| 19 | P/2014 W9 Panstarrs | 2,46 |
| 20 | P/2015 D2 Panstarrs | 2,63 |
| 21 | P/2018 P5 Panstarrs | 2,74 |
| 22 | P/2013 U1 Catalina | 2,49 |
| 23 | P/2014 W7 Christensen | 1,57 |
| 24 | P/1998 G1 Linear | 1,28 |
| 25 | P/2013 C2 Tenagra | 2,73 |
| 26 | P/2018 A4 Panstarrs | 2,52 |
| 27 | P/2018 X3 Panstarrs | 2,27 |
| 28 | P/2018 S2 (TESS) | 1,94 |
| 29 | P/2020 S2 Panstarrs | 2,64 |
| 30 | P/2021 K1 (ATLAS) | 2,44 |
| 31 | P/2022 Y1 (Hogan) | 2,52 |

**NƏTICƏ**

Kometlərin orbit elementlərini təhlil etdikdə Uran ailəsinə məxsus bir neçə fərqli xüsusiyyətin olduğu görsənir. Yupiter və Saturn ailəsindən fərqli olaraq Uran kometlərinin meyl bucaqları Neptun ailəsində olduğu kimi böyükdür. Beş kometin meyl bucağı $90^o$-dən böyük olduğuna görə onlar Günəş ətrafında tərsinə hərəkət edirlər. Yupiter ailəsində tərsinə hərəkət edən kometlərə rast gəlinmir, Saturn ailəsində isə 169 kometdən yalnız ikisi, Neptun ailəsində isə beş komet tərsinə hərəkət edir. Neptun kometlərinin Tisserand sabitlərinin orta qiyməti 2,009-dur. Uran komet sistemində bu parametrin orta qiyməti 2,388-ə bərabərdir. Bu, Neptun kometlərinə nisbətən Uran kometlərinin planetlə dayanıqlı bağlılılıqlarının olduğunu təsdiq edir. Altı kometin Tisserand sabiti ikidən kiçikdir. Bu, həmin kometlərin mənşəyinin uzun dövrlü kometlər olduğunu göstərir. İyirmi beş kometin Tisserand parametrinin $2 < T_p < 3$ intervalında olması onların periodik kometlər olmasını təsdiq edir. Bu kometlərin planetin peyklərində baş verən eruptiv proseslər nəticəsində və ya reliktiv materiladan formalaşdığını göstərir. Tisserand parametrlərini təhlil edərək Uran komet ailəsinin formalaşması əsasən iki hipotezin müddəalarını ödəyir. Planetin "zəbtetmə" fəaliyyəti mümkündür. Lakin, bu hipotezin planet üçün doğruluğu, gələcəkdə Tisserand parametri ikidən kiçik kometlərin iki-üç intervalında qiymətlər alması ilə təsdiq oluna bilər. Çünki, meyl bucağı böyük olan kometin planetlə qarşılıqlı bağlılığı o qədər də güclü olmur.

**ƏDƏBIYYAT SIYAHISI**

1 Smith, B. A.; Soderblom, L. A.; Beebe, A.; Bliss, D.; Boyce, J. M.; Brahic, A.; Briggs, G. A.; Brown, R. H.; Collins, S. A. "Voyager 2 in the Uranian System: Imaging Science Results". Science. 233 (4759). 4 July 1986: 43–64.

2 Kowal, Charles T.; Liller, William; Marsden, Brian G. (December 1978). "The discovery and orbit of /2060/ Chiron". In: Dynamics of the Solar System; Proceedings of the Symposium, Tokyo, Japan, May 23–26, 1978. 81: 245–250.

3 Qasımov H.Ə., Alxanova A.A., Məhəmmədov R.E, Periodik kometlərin afeli məsafəsinə görə təsnifatlandırılması. Ümummilli Liderimiz Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr olunmuş "Gənc tədqiqatçıların VII beynəlxalq elmi konfransı". Azərbaycan. Aprel 2023:98-103.

4 Guliyev A.S., Guliyev R.A., Gasimov A.A., On the issue of families of periodic comets of giant planets (MOID-analysis), Astronomical Journal of Azerbaijan, 2023, Vol.18, №2, pg. 5-9.

5 Лаплас П.С. "Изложения системы мира, Л. "Наука" 1982 г. с.373.

6 L. Lagranje, Sur I'origine des comets, Additions a la Connaissance des temps, pp. 381– 395. Paris, 1812

7 Казимирчак—Полонская, Е. И. Захват комет Юпитером и некоторые закономерности вековой эволюции кометных орбит [Текст] / Е. И. Казимирчак—Полонская / В сб.: Проблемы исследования Вселенной (Астрометрия и небесная механика). — М.–Л., 1978. — Т. 7. — С. 340–383.

8 67. Kresak L. Dynamical interrelations among comets and asteroids//Asteroids/Ed. T. Gehrels. – Tucson: Univ. Arizona Press. – P. 289-309.

9 https://ssd.jpl.nasa.gov/tools/sbdb_lookup.html

10 Tisserand, F. (1896). Traité de Mécanique Céleste. Vol. IV. Gauthier-Villards.

11 Quliyev Ə.S., Qasımov H.Ə. Yupıter komet ailəsi üçün Tisseran sabitinin Günəş fəallığından asılılığı. III International Young Researchers' conference. Azərbaycan. Aprel 2019:s.95-98

# SİLİSİUM ƏSASLI DETEKTORLARDA RADİASİYA DAVAMLILIĞININ TƏDQİQİ

**Rəxşanə Məmişova, Zəhra Həbibzadə**

Azərbaycan Memarlıq və İnşaat Universiteti
Magistratura mərkəzi, Həyat fəaliyyətinin təhlükəsizliyi mühəndisliyi
zahrahabibzada1407@gmail.com
BAKI, AZƏRBAYCAN

**XÜLASƏ**

Təqdim edilən işdə silisum əsaslı yeni mikropikselli selvari fotodiodlarda siqnalın yaranma mexanizminə qamma şüaların təsir xüsusiyyətləri müəyyən edilmiş və onların əsasında ssintilyatorlu detektor modullarının işlənilməsi metodları göstərilmişdir. Məlum olmuşdur ki, qamma kvantlarla şüalandırılmış MSFD fotodiodlarda səthi və həcmi qaranlıq cərəyanlarını bir-birindən ayırmağa imkan verən yeni metodlar işlənmişdir.

***Açar sözlər:*** radiasiya, detektor, diod, fotoqeydedici

**ABSTRACT**

In the presented work, the characteristics of the effect of gamma rays on the mechanism of signal generation in new silicon-based micropixel avalanche photodiodes were determined, and the methods of developing scintillator detector modules based on them were shown. It was found that new methods have been developed that allow to separate surface and bulk dark currents in MAFD photodiodes irradiated with gamma quanta.

***Key words:*** radiation, detector, diode, photorecorder

## GİRİŞ

Son dövrlərdə elmdə, sənayedə, kənd təsərrüfatında və başqa sahələrdə nüvə texnologiyaları və radioizotop maddələrin geniş tətbiq edilməsi bu sahələrdə radiasiya təhlükəsizliyinin təmin edilməsini gündəmdə olan məsələ olaraq aktual edir[1-2]. Hal-hazırda radiasiya təhlükəsizliyinin təmin edilməsi məqsədi ilə qaz kameralı sayğaclar, termolümunisent təbəqə və ssintilyator əsaslı detektor modulları geniş istifadə edilir. İstifadə edilən bu detektor modullarının bir sıra çatışmazlıqları mövcüddur. Məsələn,qaz kameralı sayğaclarda qeyd etmə effektivliyinin çox aşağı olması, termolümunisent təbəqə əsaslı qeydedicilərdə dozanın oxunması üçün əlavə oxuyucudan istifadə edilməsi, ssintilyator əsaslı detektor modullarında yüksək gərginlikdən istifadə edilməsi bu cihazların tətbiqi zamanı müəyyən problemlər yaradır. Sadalanan çoxsaylı bu çatışmazlıqlar detektor modullarının yeni nəsil fotoqeydedicilər əsasında inkişaf etdirilməsini aktual edir.

## METODİKA VƏ NƏTİCƏLƏR

Son dövrlərdə yüksək enerjilər fizikası, astronomiya, tibb və digər sahələrdə əldə olunmuş nailiyyətlər və inkişaf artıq yeni nəsil radiasiya qeydedicilərinin (detektorların) yaradılmasına təkan vermişdir. Belə detektorlardan ən geniş yayılan "ssintilyator+ fotoqeydedici" cütlüyündən ibarət olan ssintilyatorlu detektorlar hesab olunurlar[2-4]. XX əsrin sonlarına qədər zərrəciklərin ssintilyatorda yaratdığı foto siqnalın oxunması üçün vakuum fotoelektron gücləndiricilərindən (FEG) geniş istifadə edilirdi. Ancaq bir çox təcrübələrdə ssintilyatorlardan alınan siqnalı oxumaq üçün istifadə edilən fotoqəbuledicilərin kompakt, zərbəyə davamlı, yüksək maqnit sahəsində işləmə qabiliyyətiniə, aşağı işləmə gərginliyinə malik olması həmçinin yüksək radiasiya dozasına davam gətirməsi kimi şərtlər tələb edilir. Sadalanan bu çatışmamazlıqların həlli üçün istifadə edilə biləcək ən əlverişli fotoqeydedicilər silisium əsasında hazırlanmış selvari fotodiodlar (SFD) hesab edilir. Keçən əsrin 90-cı illərindən başlayaraq SFD-ların yeni nəsli olan səthi mikro-pikselli selvari fotodiodlar (MPSF) bu sahədə geniş tətbiq olunmağa başlanıldı. MPSF tipli fotoqeydedicilər yüksək gücləndirmə əmsalına (104 – 106 ) malik olduqlarına görə onları bərk cism fotoelektron gücləndiriciləri də adlandırırlar. Hal hazırda MPSF fotoqeyedecilərin iki növü daha geniş yayılmışdır. Birinci növ MPSF-da ölçüləri 20–50mkm intervalında olan və bir-birilə əlaqəsi olmayan mikro-piksellər (kiçik p-n – keçidlər) cihazın

bilavasitə səthində yerləşdirilir. Hər bir piksel xüsusi mikrorezistor vasitəsi ilə ümumi kontakt xətlərinə birləşir. Mikrorezistorlar və ümumi kontakt xətləri piksellər arasında yerləşdirilir ki, bu da cihazın effektiv həssas sahəsini azaldır. İkinci növ MPSF-da bu nöqsanlar aradan qaldırılaraq, ölçüləri 2– 5mkm intervalında olan mikro-piksellər cihazın səthindən 4mkm dərinlikdə yerləşdirilmişdir ki, onların nə mikrorezistorları, nə də piksellər arasında yerləşən ümumi kontakt xətləri var. Belə ki, qamma kvantlarla şüalandırılmış MSFD fotodiodlarda səthi və həcmi qaranlıq cərəyanlarını bir-birindən ayırmağa imkan verən yeni metodlar işlənmişdir. Tədqiqat zamanı müəyyən edilmişdir ki, şüalanma zamanı yaranan radiasiya defektləri cihazın səthi qaranlıq cərəyanını yox, ancaq onun həcmi qaranlıq cərəyanını artırır. Bu deməyə əsas verir ki, Si əsaslı MPSF-lar bir çox elm və texnika sahələrində, o cümlədən kalorimetrlərdə və tibbi skannerlərdə istifadə edilmək üçün daha perspektivli diodlar hesab olunurlar[5].

**ƏDƏBİYYAT**

1. Rossin, A.D. Dosimetry for Radiation Damage Studies. IEEE Trans. Nucl. Sci. 1964, 11, 130–136. doi:10.1109/TNS2.1964.4315483.

2. Kloepper, R.M. Neutron and Gamma-Ray Rate Sensitivities of Several Dynamic Detectors Used in Radiation Effects. IEEE Trans. Nucl. Sci. 1964, 11, 137–144.

3. Sadygov Z., Olshevski O., Chirikov I. et al. Three advanced designs of micro-pixel avalanche photodiodes: Their pre- sent status, maximum possibilities and limitations // Nucl. Instrum. Meth. A, 2006, V. 567, p. 70-73

4. F.I. Ahmadov, R.S. Madatov , Z.Y. Sadygov, Y.M. Mustafayev, Investigation of Radiation Effect to Micro-Channel Avalanche Photo Diode, məqalə, Azərbaycan Milli Elmlər Akademiyasının Xəbərləri, Fizika– riyaziyyat və texnika elmləri seriyası, fizika və astronomiya Bakı-2011, V.31, N.5, s.14-17

5. R.M Mamishova.– Application of Semiconductor Detectors in Ensuring Radiation Safety. 1st International Scientific and Practical Internet Conference. 2022 Ukraine. Pp. 116-117.

# QAMMA ŞÜALANMA İLƏ MODİFİKASİYA OLUNMUŞ PVS/CuS NANOKOMPOZİTLƏRİNİN ELEKTRİK XASSƏLƏRİ

**A.İ. QASIMOVA, M.A. NURIYEV, İ.M. NURUYEV**

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Radiasiya Problemləri İnstitutu
AZ 1143, B. Vahabzadə 9,
***a.a7787@mail.ru***
BAKI, AZƏRBAYCAN

**XÜLASƏ**

Polivinil spirtinin (PVS) məsamələrində laylı kimyəvi sorbsiya üsulu ilə mis sulfid (CuS) nanohissəciklərinin 10 və 20 tsikldə formalaşdırılması ilə PVS/CuS nanokompozitləri alınmışdır. Onların ilkin və müxtəlif dozalarda qamma şüalarla modifikasiya olunmuş nümunələrinin elektrik xassələrinin temperatur asılılığı tədqiq edilmiş. Göstərilmişdir ki, qamma şüalanmanın PVS və PVS/CuS nanokompozitlərinin elektrik xassələrinə təsirinin səbəbi dozanın artması ilə matriasada və fazalararası sərhəddə gedən tikilmə və destruksiya prosesləri arasında nisbətin dəyişməsidir.

**AÇAR SÖZLƏR: Nanokompozit, PVS, CuS, qamma şüalanma**

**ABSTRACT:** PVS/CuS nanocomposites were obtained by forming copper sulfide (CuS) nanoparticles in 10 and 20 cycles by layered chemical sorption method in polyvinyl alcohol (PVA) pores. The temperature dependence of the electrical properties of their original and samples modified with gamma rays at different doses was studied. It has been shown that the reason for the effect of

gamma radiation on the electrical properties of PVA and PVA/CuS nanocomposites is the change in the ratio between the building and destruction processes in the matrix and at the interphase boundary with the increase of the dose.

**KEYWORDS:** Nanocomposite, PVA, CuS, gamma radiation.

## GİRİŞ

Nanoölçülü hissəciklər əsasında polimer nanokompozitlərin alınması və tədqiqi müasir elm və texnikanın prioritet istiqamətlərindəndir. Bu hissəciklərin polimer matrisanın həcmində nanoölçülü reaktorlarda formalaşdırılması isə onların həcmdə bərabər paylanması nöqteyi nəzərindən yanaşdıqda kifayət qədər aktual bir məsələdir. Bu mənada optik, fotokatalitik və elektrofiziki xassələrə malik polimer - yarımkeçirici tipli nanokompozitlərin alınması və onların tədqiqi böyük maraq kəsb edir (M.A. Nuriyev,2023; Helgesen M., 2009; Mayer A.C., 2007) Təqdim etdiyimiz material da elə bu məsələyə, yəni ilkin və müxtəlif dozalarda qamma şüalanmaya məruz qalmış PVS matrisada 10 və 20 tsikldə formalaşdırılmış PVS/CuS nanokompozitlərinin elektrik xassələrinin, əsasən də, xüsusi müqavimətinin (ρ) temperatur asılılıqlarının tədqiqinə həsr edilmişdir. Kompozitlərin elektrik xassələrinin tədqiqi onların elm və elektrotexnikanın müxtəlif sahələrində tətbiqi nöqteyi nəzərindən böyük maraq və əhəmiyyət kəsb edir.

## TƏDQİQAT METODU

PVS/CuS nanokompozitləri suda şişirdilmiş PVS təbəqəsinin məsamələrində CuS nanohissəciklərinin laylı kimyəvi sorbsiya üsulu ilə formalaşdırılmışdır (M.A. Nuriyev, 2023). Polimer matrisada CuS nanohissəciklərinin formalaşmasına ilkin nəzarət hər tsikldən sonra PVS/CuS nanokompozitlərin rənginin dəyişməsinə görə aparılmışdır. Polimer və kompozit nümunələrinin qamma şüalanması Bakı şəhərində Radiasiya Problemləri İnstitutunda yerləşən $Co^{60}$ izotopu əsasında işləyən MPX-γ-25M cihazında otaq temperaturunda aparılıb. Bu məqsədlə PVS və PVS/CuS kompozit nümunələri 4 bərabər hissəyə bölünmüşdür. Onlardan bir hissəsi ilkin nümunə kimi saxlanmış, qalan 3 nümunə isə 50, 100 və 200 kGy udulma dozasına qədər şüalandırılmışdır.. Nanokompozitlərin dəyişən cərəyanda xüsusi müqaviməti E7-20 RLS metrinin köməyi ilə, nümunələrin ~2,5K/dəq. sabit sürətlə qızdırılması rejimində ölçülmüşdür.

İlkin və müxtəlif dozalarda qamma şüalarla işlənmiş PVS və PVS/CuS nanokompozit təbəqələrinin elektrik xassələrinin qiymətləndirilməsi üçün onların xüsusi müqavimətinin temperatur asılılığı tədqiq edilmişdir (Şəkil 1.). Şəkildən göründüyü kimi nanokompozitlərin $\lg\rho=f(1/T)$ asılılığında nəzərə çarpan dəyişiklik 100 və 200kGy dozada şüalanmış PVS/10ts.CuS nanokompozitinə məxsus asılılıqlarda müşahidə olunur. Belə ki, xüsusi müqavimətin enmə oblastı ilə nisbətən sabit qalan hissəsinə çəkilən toxunanların kəsişmə nöqtəsindən endirilən perpendikulyarın absis oxunu kəsdiyi nöqtəyə uyğun temperaturun ~30K yüksək temperaturlara tərəf yerini dəyişdiyini müşahidə edirik. Hesab edirik ki, qamma şüalanmanın təsirindən yuxarı temperaturlara tərəf yerdəyişmənin səbəbi nanohissəciklərin səthi ilə makromolekullar arasında yaranan hidrogen əlaqələrinin və radiasiyanın təsiri ilə gedən tikilmə proseslərinin polimer vahidlərinin mütəhərrikliyini azaldaraq xüsusi elektrik müqavimətini artırmasıdır.

100 və 200kGy dozada şüalanmış PVS/20ts.CuS nanokompozitinə məxsus temperatur asılılıqlarının müqayisəsindən 100kGy dozada işlənmiş nümunənin xüsusi müqaviməti qiymətinin təqribən 2 tərtibə qədər azalaraq stabilləşdiyini görürük.




**Şəkil 1.** Təmiz və qamma şüalanmış PVS və PVS/CuS nanokompozitlərinin müqavimətinin temperaturdan asılılığı

200kGy dozada işlənmiş nümunələrdə isə xüsusi müqavimətin başlanğıc qiymətinin bir qədər artmasına baxmayaraq matrisada zəncirlərarası əlaqənin zəifləməsi səbəbindən temperatur stabilliyinin pozulduğunu müşahidə edirik.

**NƏTİCƏ**

Qamma şüalanmanın PVS və PVS/CuS nanokompozitlərinin elektrofiziki xassələrinə təsiri zamanı müşahidə olunan dəyişikliklərin səbəbi udulan dozanın artması ilə matriasada və fazalararası sərhəddə gedən tikilmə, destruksiya və oksidləşmə prosesləri arasında nisbətin dəyişməsidir. Termik relaksasiya proseslərinin yuxarı temperaturlara tərəf ~30K yerdəyişməsini qamma şüalarla işlənmiş PVS/10ts.CuS nanokompozitinin termik davamlılığının artması və istismar xüsusiyyətlərinin yaxşılaşması kimi qəbul etmək olar.

**ƏDƏBIYYAT SIYAHISI**

1. M.A. Nuriyev, A.I. Gasimova, A.A. Nabiyev, A.A. Shukurova, I.M. Nuruyev. (2023) Influence of gamma irradiation on the electrophysical properties of PVA/CdS polymer nanocomposites, Radiation Physics and Chemistry, 212 111160; https://doi.org/10.1016/j.radphyschem.2023.111160

2. Helgesen M, Sondergaard R, Krebs F.C. (2009) Advanced materials and processes for polymer solar cell devices., J Mater. Chem., 20, 36–60; https://doi.org/10.1039/B913168J

3. Mayer A.C., Scully S.R., Hardin B.E., Rowell M.W., McGehee M.D. (2007) Polymer-based solar cells. Mater. Today. 10, p.28–33: https://doi.org/10.1016/S1369-7021(07)70276-6

# ЭЛЕКТРОФИЗИЧЕСКИЕ СВОЙСТВА ГАММА ОБЛУЧЕННЫХ НАНОКОМПОЗИТОВ ПЭНП/ZnS

**А.А. ШУКЮРОВА, А.И.ГАСЫМОВА, М.А. НУРИЕВ**

Институт Радиационных Проблем
Министерства Науки и Образования Азербайджанской Республики
AZ 1143, Б. Вахабзаде 9
shukurova.adalat@mail.ru
БАКУ, АЗЕРБАЙДЖАН

**АБСТРАКТ**

Изучено влияния γ-излучения на электрофизические свойства нанокомпозитов на основе ориентированного полиэтилена низкой плотности (ПЭНП) в порах которых, методом послойной хемосорбции сформированы наночастицы сульфида цинка (ZnS). Эти материалы могут быть применены в качестве активного материала в различной области науки и техники. Показано, что в зависимости от цикла формирования изменяется размер и концентрация наночастиц в полимерной матрице и соответственно, электрофизические свойства композитов. Диапазон воздействия гамма радиации для нанокомпозитов на основе ПЭНП составила ~100÷500кГр. Воздействие гамма радиации при низких дозах приводит к сшиванию, а при высоких дозах к деструкции в полимерной матрице и межфазном слое полимер-наполнитель, который приводит к изменению электрофизических параметров нанокомпозитов ПЭНП/ZnS.

**КЛЮЧЕВЫЕ СЛОВА: Нанокомпозит, ПЭНП, ZnS, гамма облучения**

**ABSTRACT:** The influence of γ-radiation on the electrical properties of nanocomposites based on oriented low-density polyethylene (LDPE) in the pores of which zinc sulfide (ZnS) nanoparticles are formed by layer-by-layer chemisorption is studied. These materials can be used as active materials in various fields of science and technology. It has been shown that, depending on the formation cycle, the size and concentration of nanoparticles in the polymer matrix and, accordingly, the electrical properties of the composites change. The range of exposure to gamma radiation for nanocomposites based on LDPE was ~100÷500 kGy. Exposure to gamma radiation at low doses leads to cross-linking, and at high doses to destruction in the polymer matrix and the polymer-filler interfacial layer, which leads to a change in the electrical parameters of LDPE/ZnS nanocomposites.

**KEY WORDS: Nanocomposite, LDPE, ZnS, gamma irradiation**

**ВВЕДЕНИЕ**

В настоящее время актуальными является области науки и техники, связанные с созданием полимерных композитов с наноразмерными наполнителями. Это связано с уникальными оптическими, электрофизическими и магнитными свойствами нанокомпозитов (M.A. Nuriyev 2023; Alireza Kharazmi 2013; Ta-I Yang 2008). В представленной работе исследованы электрофизические свойства исходной и облученной до 500кГр нанокомпозитов ПЭНП/ZnS полученной методом послойной хемосорбции ионов (M.A. Nuriyev 2023). Были получены нанокомпозиты ПЭНП/ZnS с тремя, пятью и семью циклами формирования.

**МЕТОДЫ ИССЛЕДОВАНИЕ**

В представленной рисунке приведены зависимости электрофизических параметров (ε, tgδ и lgρ) от поглощённой дозы гамма облучения композитов ПЭНП/ZnS, которые были облучены при дозах 100, 300 и 500 кГр. Электрофизические параметры были измерены с помощью измерителя иммитанса E7-20. Из зависимостей ε=f(D) видно что для композита ПЭНП/3циклZnS наблюдается спад при дозе 100-300кГр, с дальнейшим повыщением при дозе 500кГр. Для композитов полученных при 5 циклах в значении ε при измеренных интервале доз наблюдается небольшая отклонения от среднего значения. А для композитов полученных в 7 циклах наблюдается рост при 100кГр, с дальнейшим относителной стабилизацией. Считаем, что в композитах с низким содержанием ZnS (3циклах) до дозы 300кГр преобладают процессы сшивания, который приводит к понижению подвижности макромолекул и диэлектрической

проницаемости. С повышением дозы до 500кГр деструкция превышает сшиванию, что приводит росту объемных зарядов и низкоразмерных молекулярных единиц, которых участвуя в поляризации приводит к повышению значении диэлектрической проницаемости. В нанокомпозитах ПЭНП/ZnS с относительно высоким содержанием наночастиц, после воздействие радиации происходит рость объемных зарядов, который стимулируют поляризационные процессы в межфазной границе полимера с наполнителем, что приводит к повышению диэлектрической проницаемости.




**Рис. 1.** Зависимости ε=f(D), tgδ=f(D) и lgρ=f(D) от поглощенной дозы гамма-облучения композитов ПЭНП/ZnS: 1-3 циклах ZnS; 2-5 циклах ZnS; 3-7 циклах ZnS

**ВЫВОДЫ**

В дозовых зависимостях ε=f(D), tgδ=f(D) и lgρ=f(D) нанокомпозита ПЭНП/ZnS с низким содержанием ZnS наблюдается понижения диэлектрической проницаемости, стабилизация значения tgδ и ρ до дозы 300кГр связанный понижением подвижности молекулярных единиц в результате радиационного сшивания. С увеличением содержание наполнителя и дозы облучения, наблюдается снижения ρ и соответственное повышения tgδ в результате роста объемных зарядов и активации процессов в межфазной границе полимера с наполнителем.

**ƏDƏBIYYAT SIYAHISI**

1. M.A. Nuriyev, A.I. Gasimova, A.A. Nabiyev, A.A. Shukurova, I.M. Nuruyev. (2023) Influence of gamma irradiation on the electrophysical properties of PVA/CdS polymer nanocomposites, Radiation Physics and Chemistry, 212 111160.

2. Alireza Kharazmi, Elias Saion, Nastaran Faraji, Nayereh Soltani, Arash Dehzangi. (2013) Optical Properties of CdS/PVA Nanocomposite Films Synthesized using the Gamma-Irradiation-Induced Method // CHIN. PHYS. LETT. Vol. 30, No. 5, 057803-(1-5).

3. Ta-I Yang, Rene N.C. Brown, Leo C. Kempel, Peter Kofinas. (2008), Magneto-dielectric Properties of polymer–Fe3O4 nanocomposites, Journal of Magnetism and Magnetic Materials, 320, 2714– 2720.

# KİMYA

## N-METİLPİRROLİDONPERXLORAT KATALİZATORU İŞTİRAKINDA 2,4,5-TRİFENİL-1-(4-(FENİLDİAZENİL)FENİL)-1H- İMİDAZOLUN SİNTEZİ VƏ TƏDQİQİ

**Orucova N.S., Cəfərova R.Ə., Məmmədov A.M., Əzizbəyli E.İ., Həsənov E.K**

*Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Y.H.Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutu, Bakı ş., Xocalı 30, AZ 1025*
*Bakı, Azərbaycan*
*e-mail:nargiz.orucova@list.ru*

**XÜLASƏ**

Bildiyimiz kimi imidazollar geniş tətbiq sahələrinə malik olduqlarından imidazol sintezinə olan maraq günü-gündən artır. Əvvəllər imidazolların sintezində istifadə olunan üsullarda reaksiya şəraitinin uzunmüddətli və sərt olması, eyni zamanda məhsulların kiçik çıxımla alınması tədqiqatçılar tərəfindən yeni üsulların işlənib hazırlanmasını aktuallaşdırır. Hazırda imidazol sintezində müasir yanaşmalar tətbiq edilir. Təqdim olunan tezis materialında imidazolların sintezi zamanı N-metilpirrolidonperxlorat ion maye katalizatorundan istifadə olunur. Bunun önəmli səbəbləri var. İon maye katalizatorlarıyla gedən reaksiyalar qısa müddətli olur, reaksiya məhsullarının çıxımı yüksək olur, bu katalizatorlar suda həll olaraq reaksiya məhsullarından asanlıqla ayrılır, bir neçə dəfə istifadə oluna bilir , ekoloji cəhətdən təmizdir və s... Beləliklə, qısa vaxtda və yüksək çıxımla 2,4,5-trifenil-1-(4-(fenildiazenil)fenil)-1H-imidazolu sintez olunmuşdur.

Sintez olunmuş imidazolun fiziki-kimyəvi xassələri müəyyən olunmuşdur. Birləşmənin quruluşu $^{1}$H-NMR və İQ spektroskopiya üsulları vasitəsi ilə tədqiq edilmişdir. Nümunənin iki ölçülü HSQC NMR spektri çəkilmiş və hidrogensiz karbon atomları müəyyən edilmişdir.

**ABSTRACT**

As we know, imidazoles have a wide range of applications, so the interest in imidazole synthesis is increasing day by day. The long-term and hard reaction conditions in the methods previously used in the synthesis of imidazoles, as well as the low yield of the products, make it urgent for researchers to develop new methods. Currently, modern approaches are applied in imidazole synthesis. In the presented thesis material, N-methylpyrrolidone perchlorate ionic liquid catalyst is used during the synthesis of imidazoles. There are important reasons for this. Reactions with ionic liquid catalysts are short-term, the yield of reaction products is high, these catalysts are easily separated from the reaction products as a solution in water, they can be used several times, they are environmentally friendly, etc. So, in a short time and with a high yield, 2.4 ,5-triphenyl-1-(4-(phenyldiazenyl)phenyl)-1H-imidazole was synthesized.

Physico-chemical properties of synthesized imidazole were determined. The structure of the compound was studied by means of 1H-NMR and IR spectroscopy methods. A two-dimensional HSQC NMR spectrum of the sample was taken and the hydrogen-free carbon atoms were determined.

**AÇAR SÖZLƏR: İmidazol, sintez, ion maye katalizatorları**

**Giriş**

İmidazollar heterotsiklik kimyanın ən önəmli birləşmələridir. Bu birləşmələr unikal xassələrə malikdirlər. İmidazollar təbiətdə bir sıra təbii birləşmələrin, o cümlədən histamin, histidin, purin, nuklein turşuları və s. tərkibinə daxildir. Eyni zamanda bəzi sintetik birləşmələrin əsasını da imidazol halqası təşkil edir. Bioloji cəhətdən aktiv olan imidazolların ən geniş tətbiq sahələrində biri farmakologiyadır. Imidazol əsaslı dərman kimyası inkişaf etmiş, bir sıra xəstəliklərin müalicəsində istifadə olunan dərmanların tərkib hissəsində imidazol halqasının mövcudluğu imidazollara olan

marağı artırmışdır Belə ki, imidazol tərkibli birləşmələrin əksəriyyəti QİÇS, malyariya, xərçəng, şəkərli diabet, müxtəlif orqan və toxumaların iltihabı və s. bir çox xəstəliklərin müalicəsində dərman maddəsi kimi istifadə olunurlar[1].

İmidazollardan sənayedə də geniş istifadə olunur. Xüsusən də, neft sənayesində mühüm əhəmiyyət kəsb edirlər. Belə ki, müasir kimyanın ən qlobal problemi olan korroziya probleminin həllində də imidazollardan istifadə olunur. Bəzi imidazollardan və onların törəmələrindən korroziya yaradan sulfat reduksiyaedici bakteriyalara qarşı inhibitor-bakterisid kimi istifadə olunur. Beləliklə də, bu imidazollardan korroziya inhibitoru kimi istifadə olunması həm iqtisadi itkilərin qarşısını almağa, həm də ekoloji problemlərin həllinə kömək edir. Bu birləşmələr metal təbəqənin üzərində qoruyucu qat yaratmaqla sulfat-reduksiyaedici bakteriyaların metalların səthində korroziya yaratmasının qarşısını alır [2].

Suda həll olan bəzi imidazollardan kənd təsərüfatında bitki böyütmə tənzimləyiciləri kimi istifadə olunurlar. Lüminnessent xassəli imidazollar LED sənayesində və deffektoskopiyada tətbiq olunurlar [3].

Tətbiq sahələrinin bu qədər geniş olması imidazol sintezinə marağı artırır. İmidazolların səmərəli sintezi müasir kimyanın qarşıya qoyduğu əsas problemlərdən biridir. Imidazolların sintezində son dövrlərdə ion maye katalizatorlarından geniş istifadə olunur və imidazol sintezinə maraq günü-gündən artır [4].

**TƏDQİQAT METODU**

Təqdim olunan tezis materialında ion tipli N-metilpirrolidonperxlorat katalizatorunun iştirakında qısa vaxtda və yüksək çıxımla 2,4,5-trifenil-1-(4-(fenildiazenil)fenil)-1H-imidazolun sintezindən bəhs olunur. Reagentlər olaraq benzil, ammonium-asetat, benzaldehid, p-aminoazobenzol və həlledici olaraq etil spirti götürülmüşdür. Reaksiya aşağıdakı sxem üzrə gedir:




Sxem. 2,4,5-trifenil-1-(4-(fenildiazenil)fenil)-1Himidazolun sintezi

Sintez 34 dəqiqə müddətində başa çatır. Alınan məhsul buzlu su ilə qarışdırılaraq süzülür və beləliklə katalizatordan təmizlənir. Daha sonra bərk kütlə qurudulur və etil spirtində rekristalizasiya olunur. Məhsulun çıxımı 75.6 % təşkil edir.

Birləşmənin quruluşu $^{1}$H-NMR və İQ spektroskopiya üsulları vasitəsi ilə tədqiq edilmişdir. $^{1}$H,$^{13}$C və HSQC NMR spektrləri "BRUKER" firmasının istehsalı olan 300,18 MHz tezlikli NMR-Fourier-300 spektrometrində otaq temperaturunda, İQ spektrləri isə "BRUKER" firmasının istehsalı olan ALPHA İR-Fourier spektrometrində 600-4000 $sm^{-1}$ dalğa ədədi intervalında çəkilmişdir.

Spektral və analitik məlumatlar:

2,4,5-trifenil-1-(4-(fenildiazenil)fenil)-1H- imidazol**.** Maddənin formulu: $C_{33}H_{24}N_4$, Molekul kütləsi: Mr=476.27, Ərimə temperaturu:135$^{\circ}$C

Nümunənin iki ölçülü HSQC NMR spektri çəkilmiş və hidrogensiz karbon atomları (128.82, 131.07, 132.99, 136.38, 150.56, 152.66, 154.77) müəyyən edilmişdir [5].




**Şəkil.** Nümunənin HSQC NMR spektri

NMR spektrskopiyası: $^{1}$H-NMR (acetone-$d_6$δ, m.h.): 7.43-7.45 (m., 1H), 7.45-7.47 (m., 1H), 7.54-7.58 (m. 5H), 7.59-7.62 (m., 2H), 7.62-7.64 (m., 2H), 7.64-7.67 (m., 1H), 7.75-7.82 (m., 2H), 7.93-7.95 (m., 1H), 7.95-7.99 (m., 3H), 7.99-8.02 (m., 4H), 8.02-8.05 (m., 2H),$^{13}$C-NMR: 121.82, 122.63, 123.96, 128.82, 128.99, 129.26, 129.28, 129.59, 131.07, 131.72, 132.99, 135.11, 136.38 (C, Ar.) 150.56, 152.66, 154.77 (C-N)

İnfraqırmızı spektroskopiya: İQ ($sm^{-1}$): ν-1659 (C=N), δ-681, 718, 750, 847, ν-1303 (C-N), ν-1572 (C-C), ν-1618 (N=N) [5]

**NƏTİCƏ**

N-metilpirrolidonperxlorat katalizatoru iştirakında 2,4,5-trifenil-1-(4-(fenildiazenil)fenil)-1H-imidazolu sintez olunmuş, onun fiziki-kimyəvi xassələri tədqiq olunmuş, spektral və analitik məlumatları verilmişdir. Bu imidazoldan antimikrob, inhibitor bakterisid və fülleresent maddə kimi istifadə oluna bilər.

**ƏDƏBİYYAT SİYAHISI**

1. Raghuram Gujjarappa, Arup K. Kabi, Sattu Sravani, Aakriti Garg, Nagaraju Vodnala, Ujjawal Tyagi, Dhananjaya Kaldhi, Ravichandiran Velayutham, Virender Singh, Sreya Gupta, Chandi C. Malakar.Overview on Biological Activities of Imidazole Derivatives. Nanostructured Biomaterials, pp.135–22

2. Jeenat Aslam, Ruby Aslam, Chandrabhan Verma.İmidazole and Its Derivatives as Corrosion Inhibitors. In book: Organic Corrosion Inhibitors, 2021, pp.95-122

3. Mikhail Y. Berezin,Jeff Kao. Samuel Achilefu. pH-Dependent Optical Properties of Synthetic Fluorescent Imidazoles. Chemistry, 2009, 15(14): 3560–3566.

4. Məmmədov A.M., Cəfərova R.Ə., Əliyev B.M., Məmmədova R.R., Orucova N.S. Üç və dördəvəzli imidazolların sintezi. Gənc tədqiqatçı, 2020, Vol. 4, No.1, pp. 27-37

5. Orujova N.S., Mammadov A.M., Jafarova R.A.,Yolchuyeva U.J., Ahmadbayova S.F. Synthesis and Study of Diphenyl and 4-(Phenyldiazenyl)Phenyl Based Tetrasubstituted İmidazoles in the Presence of İonic Liquid Catalysts. The journal " Processes of Poetrochemistry and oil Refining" (PPOR) , 2023, №2 , 235-245

# OKTAN VƏ NONAN TURŞULARININ TRİETANOLAMİNLƏ ƏMƏLƏ GƏTİRDİYİ DUZLARIN FİZİKİ-KİMYƏVİ XASSƏLƏRİ

**Şahverdiyeva Asya Fərhad qızı**

*Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin akademik Y.H.Məmmədəliyev, adına Neft-Kimya Prosesləri İnstitutu. Bakı, Azərbaycan*
asya21-89@mail.ru

**Xülasə**

Məqalədə birəsaslı karbon turşuları olan oktan və nonan turşularının trietanolamin ilə əmələ gətirdiyi dördlüammonium duzlarının Balaxanı nefti ilə çirklənmiş müxtəlif minerallaşma dərəcəsinə malik olan distillə, içməli, dəniz sularında neftyığıcı və neftdisperləyici xasələrinin tədqiqinin nəticələri verilmişdir. Bu komplekslərin tərkibi infraqırmızı spektroskopiya üsulu ilə identifikasiya edilmişdir. Oktan və nonan turşularının trietanolaminlə əmələ gətirdiyi komplekslərin tərkibi infraqırmızı spektroskopiya üsulu ilə tədqiqinin nəticəsi də reaksiyanın məqalədə göstərilən sxem üzrə getdiyini sübut edir.Bu komplekslərin müxtəlif qatılıqlı məhsullarının tenziometr vasitəsilə səthi fəallıq xassəsi, hesablama üsulu ilə element tərkibi hesablanmışdır. Müəyyən olunmuşdur ki, nonan turşusunun trietanolamin ilə əmələ gətirdiyi kompleksdə karbonun kütlə payı oktan turşusunun trietanolamin ilə əmələ gətirdiyi kompleksə nisbətən yüksəkdir. Oktan turşusunun trietanolamin ilə əmələ gətirdiyi kompleks səthi gərilməni su-hava sərhədində uyğun olaraq, 71.98 mN/m-dən 32 mN/m -ə, nonan turşusunun trietanolamin ilə əmələ gətirdiyi kompleks 26.2 mN/m -ə endirməklə yüksək səthi-aktivlik nümayiş etdirir. Göründüyü kimi, nonan turşusunun trietanolamin ilə əmələ gətirdiyi kompleks birləşmə daha çox səthi fəallıq xassəsi göstərir. Alınan komplekslərin hər ikisi etil və izopropil spirtlərində yaxşı həll olur.Hər iki turşunun trietanolamin ilə əmələ gətirdiyi duzların nisbi şüa sındırma əmsalı 20°C-də Abbemat 500 markalı refraktometr vasitəsilə ölçülməsi nəticəsində müəyyən olunmuşdur ki, oktan və nonan turşularının trietanolamin ilə əmələ gətirdikləri duzların nisbi şüa sındırma əmsalı uyğun olaraq 1.4358 və 1.4528-ə bərabərdir.

**Açar sözlər:** səthi gərilmə, səthi aktiv maddə, karbon turşusu

Каталаза широко присутствует у животных, растений и микроорганизмов. В биологических и биохимических системах каталаза является антиоксидантным ферментом и играет важную роль в удалении токсичной и окисляющей перекиси водорода из клеток. Каталаза отвечает за защиту тканей от токсического воздействия $H_2O_2$ и частично восстановленных форм кислорода (2003). Система антиоксидантной защиты защищает клетку от окислительного повреждения свободными радикалами или другими реактивными молекулами. Каталаза представляет собой оксидоредуктазу с гемовой группой. Фермент каталаза — это фермент, обнаруженный в эритроцитах, печени, почках, костном мозге и различных тканях живых организмов, и обнаруживается в высоких концентрациях, особенно в пероксисомах клеток. Многие формы этого фермента были обнаружены у мышей.

***Ключевые слова:*** *биомиметический катализатор, топливные элементы, механизмы действия.*

# $C_{10}$-KARBON TURŞUSUNUN ALLİL EFİRİNİN STİROLLA BİRGƏ POLİMERİ SÜRTKÜ YAĞLARINA ÖZLÜLÜK AŞQARI KİMİ

**L.K. KAZIMZADƏ, V.M.FƏRZƏLİYEV, C.Ş.HƏMIDOVA, E.U.İSAKOV, E.İ.HƏSƏNOVA, N.C.HÜSEYNOVA**

ARETN-nin akademik Ə.M.Quliyev adına Aşqarlar Kimyası İnstitutu
*Email: lkazimzade@mail.ru*
BAKI, AZƏRBAYCAN

**XÜLASƏ**

Polialkilmetakrilat tipli aşqarların sintezi və tədqiqi istiqamətində aparılan elmi işlərin analizi göstərir ki, mürəkkəb efir tipli polimerlərin alınması karbohidrogen tipli polimerlərə nisbətən perspektivlidir – həm sadə texnologiya üzrə alınırlar, həm də yağların özlülük-temperatur xassələrini daha effektiv yaxşılaşdırırlar. Bu nöqteyi-nəzərdən, özlülük aşqarları almaq üçün istifadə edilən monomerlərin xammal ehtiyatlarını genişləndirmək məqsədilə mürəkkəb allil efirlərinin sintezi və onları vinil monomerləri ilə birgə polimerləşdirərək, sintetik və neft yağlarına özlülük aşqarları alınması istiqamətində tədqiqatlar aktual hesab olunmalıdır. Allil monomerləri ayrılıqda polimerləşmirlər, lakin asanlıqla birgə polimerləşmə reaksiyasına daxil olurlar. Ona görə də $C_{10}$-karbon (kaprin) turşusunun allil spirti ilə reaksiyasından alınan monomer (allilkaprinat) stirolla birgə polimerləşdirilmişdir. Stirol neft kimyasının ucuz monomerlərindən biridir və açıq zəncirli polimer makromolekuluna stirol manqalarının daxil edilməsi alınacaq birgə polimerlərə termiki təsirlərə qarşı stabillik verir. Məqalədə kaprin turşusunun allil efirinin – allilkaprinatın stirolla birgə polimerinin radikal mexanizmi üzrə birgə polimerləşməsinin, prosesə əsas amillərin – ilkin monomer qarışığının və inisiatorun təsirinin və birgə polimerin sürtkü yağlarının tərkibində özlülük aşqarı kimi tədqiqinin nəticələri verilmişdir. Müəyyən edilmişdir ki, sintez edilmiş birgə polimer nümunələri yağların özlülük-temperatur xassələrini yaxşılaşdırmağa görə polialkilmetakrilat tipli sənaye aşqarları ilə eyni səviyyədə olduğu halda, termiki təsirlərə qarşı davamlılıqlarına görə onlardan daha yüksək istismar göstəricilərinə malidirlər ki, bu hal isə stirol manqalarının stabilləşdirici təsiri ilə izah olunmalıdır. Sintez olunmuş birgə polimer nümunələrinin neft yağlarına özlülük aşqarları kimi tədqiqi göstərmişdir ki, tələbatdan asılı olaraq istənilən molekul kütləyə malik yüksək çıxımlı birgə polimerlər sintez edərək, bu yağlara özlülük aşqarı kimi istifadə etmək olar.

**Açar sözlər:** kaprin turşusu, allil spirti, allilkaprinat, stirol, birgə polimer, özlülük aşqarı, neft yağları

## CO-POLYMER OF $C_{10}$-CARBON ACID ALLYL ETHER WITH STYRENE AS A VISCOSITY ADDITIVE IN LUBRICANT OILS

**L.K. KAZIM-ZADEH, V.M.FARZALİYEV, J.SH.HAMIDOVA, E.U.İSAKOV, E.İ.HASANOVA, N.J.HUSEYNOVA**

*Institute of Chemistry of Additives named after Academician A.M. Guliyev of the Ministry of Science and Education of the Azerbaijan Republic*
*Email: lkazimzade@mail.ru*
BAKU, AZERBAIJAN

**ABSTRACT:** The analysis of the scientific works conducted in the direction of the synthesis and research of polyalkyl methacrylate type additives shows that the production of complex ether type polymers is more promising than the hydrocarbon type polymers - both are obtained by simple technology and improve the viscosity-temperature properties of oils more effectively. From this point of view, in order to expand the raw materials reserves of monomers used for obtaining viscosity additives, researches in the direction of synthesis of complex allyl ethers and their co-polymerization with vinyl monomers, in order to obtain viscosity additives for synthetic and petroleum oils, should be considered relevant. Allyl monomers do not polymerize separately, but readily enter into a co-polymerization reaction. Therefore, the monomer (allyl caprinate) obtained from the reaction of $C_{10}$-carbon (capric) acid with allyl alcohol is co-polymerized with styrene. Styrene is one of the cheap monomers of petrochemicals, and the incorporation of styrene moieties into the open-chain polymer

macromolecule gives stability to the resulting co-polymers against thermal effects. The article presents the results of co-polymerization of allyl ester of capric acid – allyl caprinate with styrene according to the radical mechanism, the main factors on the process – the effect of the initial monomer mixture and the initiator, and the study of the co-polymer as a viscosity additive in lubricating oils. It was determined that the synthesized co-polymer samples are at the same level as industrial additives of polyalkyl methacrylate type in terms of improving the viscosity-temperature properties of oils, but they have higher performance indicators due to their resistance to thermal effects, which should be explained by the stabilizing effect of styrene mangas. The study of synthesized co-polymer samples as viscosity additives for petroleum oils has shown that, depending on the demand, it is possible to synthesize high-yield co-polymers with any molecular weight and use them as viscosity additives for these oils.

**Keywords:** capric acid, allyl alcohol, allyl caprinate, styrene, co-polymer, viscosity additive, petroleum oils

## GİRİŞ

Yüksək özlülük indeksinə malik baza yağlarının alınması müasir neft kimyasının aktual məsələlərindən biridir. Yağların özlülük-temperatur xassələrini xarakterizə edən özlülük indeksinin qiyməti nə qədər yüksək olarsa, həmin yağın özlülüyü temperatur təsirindən daha az dəyişər və belə yağ qiymətli hesab edilər. Yağların özlülük-temperatur xassələri onların kimyəvi tərkibi, təmizlənmə dərəcəsi, istehsal texnologiyasının inkişaf səviyyəsi və s. ilə müəyyən edilir. Sadalanan faktorları dəyişməklə özlülük indeksinin lazımi qiymətinə nail olmaq olar. Lakin yüksək özlülük indeksinə malik yağlar alınmasının ən sadə, iqtisadi cəhətdən səmərəli və etibarlı yolu neft yağlarının tərkibində az miqdarda polimer birləşmələrdən – özlülük aşqarlarından istifadə hesab edilir, yəni kiçik maddi məsrəflə istinilən nəticəni əldə etmək mümkündür.

Özlülük aşqarları kimi poliizobutilenlər, polialkilmetakrilatlar və digər vinil monomerlərinin yağda həll olan polimer və birgə polimerləri istifadə edilir [1-4]. Lakin bu özlülük aşqarları destruktiv təsirlərə davamlılığa görə müasir texnikanın tələblərinə cavab vermir.

Polialkilmetakrilat tipli aşqarların sintezi və tədqiqi istiqamətində aparılan elmi işlərin analizi göstərir ki, mürəkkəb efir tipli polimerlərin alınması karbohidrogen tipli polimerlərə nisbətən perspektivlidir – həm sadə texnologiya üzrə alınırlar, həm də yağların özlülük-temperatur xassələrini daha effektiv yaxşılaşdırırlar. Bu nöqteyi-nəzərdən, özlülük aşqarları almaq üçün istifadə edilən monomerlərin xammal ehtiyatlarını genişləndirmək məqsədilə mürəkkəb allil efirlərinin sintezi və onları vinil monomerləri ilə birgə polimerləşdirərək, sintetik və neft yağlarına özlülük aşqarları alınması istiqamətində müəyyən tədqiqatlar aparılmışdır [5-9].

Təqdim olunan məqalədə allil monomerlərindən – kaprin turşusunun (dekan turşusu) allil efirindən – alilkaprinatdan istifadə etməklə neft yağlarına özlülük aşqarları alınması istiqamətində tədqiqatların nəticələri verilir.

Məlum olduğu kimi, allil monomerləri ayrılıqda polimerləşmirlər, lakin asanlıqla birgə polimerləşmə reaksiyasına daxil olurlar. Ona görə də alınan monomerlər (allilkaprinat) stirolla birgə polimerləşdirilmişlər. Stirol neft kimyasının ucuz monomerlərindən biridir və açıq zəncirli polimer makromolekuluna stirol manqalarının daxil edilməsi alınacaq birgə polimerlərə termiki təsirlərə qarşı stabillik verir.

## TƏCRÜBİ HİSSƏ

Allilkaprinat məlum efirləşmə reaksiyası ilə kapril turşuna allil spirti ilə təsir etməklə alınır [10].

Kaprin turşusu (dekan turşusu) və allil spirti reaktiv şəklində götürülmüşdür. Həm turşu, həm də allil spirti efirləşmə reaksiyasına təzə qovulmuş halda daxil edilir.

Kaprin turşusunun fiziki-kimyəvi xassələri: mol. kütləsi Mr = 172,26,, ərimə temperaturu $T_{ər}$ = 31.3$^o$C, qaynama temperaturu $T_{qay}$ = 270$^o$C/760 mm c.s., şüa sındırma əmsalı $n_D^{20}$ = 1.4285, sıxlıq $d_4^{20}$ = 885.8 kq/m$^3$.

Allil spirtinin fiziki-kimyəvi xassələri: mol. kütləsi Mr = 58.8, ərimə temperaturu $T_{ər}$ = –129$^o$C, qaynama temperaturu $T_{qay}$ =97$^o$C, şüa sındırma əmsalı $n_D^{20}$ = 1.4133, sıxlıq $d_4^{20}$ = 854.0 kq/sm$^3$.

Reaksiya metodiki olaraq aşağıdakı kimi aparılır: Din-Stark tutucusu ilə təchiz edilmiş üçboğazlı kolbaya hesablanmış miqdarda reagentlər, müəyyən miqdarda toluol (suyu azeotrop qovulma yolu ilə

ayırmaq üçün), reaksiya qarışığının 1%-i miqdarında КУ-2 kationiti əlavə edilib, qarışıq 110-120$^0$C temperaturda, su ayrılması dayanana qədər, qarışdırılmaqla qızdırılır:



Proses başa catdıqdan sonra КУ-2 katalizatoru süzülüb sistemdən ayrılır, məhsul neytrallaşana qədər ilıq su ilə yuyulur, toluol və allil spirtinin izləri ayrıldıqdan sonra vakuumda qovulur. Alınmış allil efiri stirolla birgə polimerləşmədə istifadə edilir.

Sintez olunmuş allilkaprinat efiri aşağıdakı fiziki-kimyəvi xassələrə malikdir: Mr = 212, $n_D^{20}$ = 1.4320, $d_4^{20}$ = 909,9 kq/m$^3$, $T_{qay}$ = 134/20 mm c.st.

Stirol reaktiv şəklində, təzə qovulmuş halda istifadə edilmişdir; fiziki-kimyəvi xassələri belədir: Mr = 104.15, $n_D^{20}$ = 1.5465, $d_4^{20}$ = 909,0 kq/m$^3$, ərimə temperaturu $T_{ər}$ = –30.06$^o$C, qaynama temperaturu $T_{qay}$ = 145$^o$C.

Birgə polimerləşmə radikal polimerləşmə mexanizmi üzrə, inisiator olaraq benzoil peroksid (BP) iştirakı ilə həlledici (heksan və ya heptan) mühitində aparılmışdır. Birgə polimerləşmə şəraitinin alınan birgə polimerin xassələrinə təsiri öyrənilmiş və nəticələr cədvəl 1-də verilmişdir.

Sintez edilmiş birləşmələrin tərkib və quruluşu İQ- və NMR-spektroskopiya metodları ilə tədqiq olunmuşdur.

Sintez edilmiş birgə polimerin termiki davamlılığı məlum metodika ilə [11] onun Turbin «Л» yağında 5%-li məhlulunun 200$^o$C-də 12 saat müddətində aparılaq, sınaq müddətindən asılı olaraq özlülüyün azalması ilə təyin edilir.

## NƏTİCƏLƏRİN MÜZAKİRƏSİ

Prosesə təsir adən əsas amillər ilkin monomer qarışığının tərkibi və inisiatorun miqdarıdır (cədvəl 1). Cədvəl 1-dən göründüyü kimi, monomerlər qarışığında stirolun miqdarının 5%-dən 25%-ə qədər artması birgə polimerin çıxımının 25,0%-dən 91,3%-ə çatmasına və molekul kütləsinin 3000-dən 8000-ə qədər artmasına səbəb olur. Bu, onunla izah olunur ki, stirol yüksək polimerləşmə qabiliyyətinə malikdir və onun monomerlər qarışığında miqdarının artması prosesin sürətlənməsinə və molekul kütləsi ilə çıxımın artmasına səbəb olur. Allil monomerləri isə ayrılıqda polimerləşmirlər, yəni homopolimer əmələ gətirmirlər, polimer zəncitrinə birgə polimerləşmə hesabına daxil olurlar. Odur ki, allil monomerlərinin miqdarı, birgə polimerin tərkibində, 50 mol%-dən çox olmamalıdır, əks halda, birgə polimerin çıxım və molekul kütləsinin azalır. İnisiatorun miqdarının 0.3%-dən 1%-ə qədər artırılması birgə polimerin çıxımını yüksəldir, lakin molekul kütləsinin azalmasına səbəb olur ki, bu da radikal polimerləşmə üçün xarakterik haldır.

**Cədvəl 1**. Allilkaprinatın stirolla birgə polimerləşməsi

| Birgə polimerləşmənin şəraiti | | | | Birgə polimer | |
|---|---|---|---|---|---|
| stirolun momomerlər qarışığında miqdarı, kütlə % | inisiatorun miqdarı, % | prosesin davametmə müddəti, saat | temperatur, $^o$C | çıxım, kütlə % | molekul kütləsi |
| 5<br>10<br>15<br>20<br>25 | 1 1 1 1 1 | 4<br>4<br>4<br>4<br>4 | 75 75<br>75 75 75 | 25,1 53,2 60,7<br>85,3 91,0 | 3000<br>4000<br>5000<br>7000<br>8000 |
| 20<br>20<br>20 20 | 0,3 0,5 0,7 1 | 4<br>4<br>4 4 | 75<br>75 75 75 | 50,0 71,1 77,2<br>83,3 | 9000<br>8000<br>7500<br>7000 |
| 20 20 | 1 1 | 3 6 | 75<br>75 | 77,7 79,8 | 7000<br>7100 |
| 20<br>20 | 1 1 | 4<br>4 | 65<br>85 | 76,4 81,4 | 7200<br>7000 |

Temperaturun 65-85$^o$C intervalında dəyişdirilməsi və polimerləşmə müddətinin artırılması prosesə kəskin şəkildə təsir etmir, inisiatorun miqdarının 1%-dən az götürülməsi isə çıxımın

azalmasına və molekul kütləsinin müəyyən qədər artmasına səbəb olur. Ona görə də yüksək çıxım və molekul kütlə göstəricilərin təmin edən reaksiya şəraiti aşağıdakı kimi seçilə bilər: temperatur 75°C, prosesin davam etmə müddəti 4 saat, inisiatorun miqdarı monomerlər qarışığına görə 1.0%.

Sintez edilmiş birgə polimerlərin quruluşu İQ- və NMR-spektroskopiyası üsulları vasitəsilə öyrənilməsi ilə əldə edilmiş nəticələrinə əsasən alınmış birgə polimer üçün aşağıdakı sxematik ümumi formul təklif edilmişdir:




*burada n = 18-22, m = 22-26, R – kaprin turşusu radikalı*

Sintez olunmuş birgə polimer sürtkü yağlarına özlülük aşqarı kimi tədqiq edilmişdir. Molekul kütləsi 8000 olan birgə polimerin qatılığının И-12А neft yağının özlülük-temperatur xassələrinə təsiri öyrənilmiş və nəticələr şəkil 1-də verilmişdir.

Şəkil 1-dən göründüyü kimi, birgə polimerin yağda qatılığının 0,5%-dən 5%-ə qədər artırılması öalülük indeksinin (Öİ) 89-dan 136-ə qədər artırır. Qatılığın sonrakı artımı (7%) Öİ-nin qiymətinin aptmasına səbəb olmur ki, bu da qatılaşdırıcı qağların ümumi qanunauyğunlyğudur. Qeyd etsək ki, tələbata görə, 100°C-də özlülüyü 8±0,5 $mm^2$/san olan qatılaşdırılmış yağların Öİ 125-dən az olmamalıdır, şəkil 1-in göstəricilərinə əsasən, И-12А yağına 5% birgə polimer əlavə etməklə tələb olunan xassələrə malik yağ almaq mümkündür.

Sintez edilmiş birgə polimerin molekul kütləsinin И-12А yağının özlülük-temperatur xassələrinə təsiri öyrənilmişdir. Yağ birgə polimerlə 100°C-də kinematik özlülüyü 7.5-8.5 $mm^2$/san

olana qədəq qatılaşdırılmış və tədqiq edilmişdir. Nəticələr şəkildə verilmişdir və güründüyü kimi, yağı qatılaşdırmaq üçün istifadə edilən bütün nümunələr Öİ-nin qiymətinə görə qoyulan tələbatı təmin edir. Lakin molekul kütləsinin azalması ilə (cədvəl 2) yağın özlülüyünün lazımi qiymətinə nail olmaq üçün yağın tərkibində birgə polimerin miqdarını artırmaq lazım gəlir ki, bu da iqtisadi cəhətdən arzuolunmazdır. Molekul kütləsinin artımı isə birgə polimerin yağların tərkibində destruktiv təsirlərə qarşıı davamlılığının azalmasına səbəb olur. Ona görə də özlülük aşqarı kimi istifadə ediləcək birgə polimerin molekul kütləsinin qiyməti qatılaşqırılmış yağın stabilliyinə qoyulan konkret tələbata uyğun olaraq seçilir.

Cədvəl 2-nin göstəricilərindən göründüyü kimi, tədqiq olunan nümunələr И-12А yağının özlülük-temperatur xassələrini yaxşılaşdırmaga görə sənaye özlülük aşqarı polialkilmetakrilatla eyni səviyyədədir.




**Şəkil.** Birgə polimerin qatılığının И-12А yağının özlülük-temperatur xassələrinə təsiri

**Cədvəl 2.** Birgə polimerlərin molekul kütləsinin И-12А yağının özlülük-temperatur xassələrinə təsiri

| Birgə polimer | | Qatılaşdırılmış yağ | |
|---|---|---|---|
| molekul kütləsi | qatılıq, % | 100°C-də kinematik özlülük, мм²/san | özlülük indeksi |
| 10000<br>9000 8000 5000<br>3000 | 4,0<br>5,5<br>6,0<br>9,0<br>10,2 | 7,6<br>7,9<br>7,8<br>7,9<br>7,6 | 139 136 135 129<br>125 |
| Polialkilmetakrilat | | | |
| 10000 | 4,1 | 8,1 | 138 |

Sintez edilmiş birgə polimer nümunəsinin termiki davamlılığı onun Turbin "Л" yağında 5%- li məhlulunu 200°C-də 12 saat müddətində qızdırmaqla məlum özlülük aşqarları poliizobutilen və polialkilmetakrilatla müqayisəli şəkildə öyrənilmişdir. Sınaqların nəticələrindən aydın olur ki, sintez edilmiş birgə polimer termiki təsirlərə qarşı davamlılığına görə poliizobutilen və polialkilmetakrilat tipli sənaye aşqarından daha yüksək istismar göstəricilərinə malikdir. Birgə polimerlə qatılaşdırılmış yağ üçün, destruksiya nəticəsində özlülüyün azalması 7,1-7,5% olduğu halda, bu göstərici poliizobutilen və polialkilmetakrilatlar üçün uyğun olaraq, 9,5-11,4 və 13,7÷17,9% aralılığındadır. Bu nəticələr onu göstərir ki, stirol molekulundakı tsiklik quruluşlu aromatik fraqmentin birgə polimerin tərkibinə daxil edilməsi alınan makromolekulyar birləşmənin termiki təsirlərə qarşı stabilliyini yüksəldir.

**NƏTİCƏLƏR**

Radikal birgə polimerləşmə yolu ilə kaprin turşusunun allil efirinin – allilkaprinatın stirollai birgə polimeri alınmış və prosesə təsir adən əsas amillərin – ilkin monemerlər qarışığının tərkibi və inisiatorun miqdarı təyin edilmişdir. Göstərilmişdir ki, monomer qarışığında stirolun miqdarının artırılması birgə polimerin çıxımının və molekul kütləsinin artmasına səbəb olur. Bu onunla izah olunur ki, stirol yüksək polimerləşmə qabiliyyətinə malikdir və onun monomerlər qarışığında miqdarının artması prosesin sürətlənməsinə və molekul kütləsi ilə çıxımın artmasına səbəb olur. Allil monomerlərinin miqdarının birgə polimerin tərkibində 50 mol%-dən çox olması birgə polimerin çıxım və molekul kütləsinin azalmasına səbəb olur. İnisiatorun miqdarının 0.3%-dən 1%-ə qədər artırılması birgə polimerin çıxımını yüksəldir, lakin molekul kütləsinin azalmasına səbəb olur ki, bu da padikal polimerləşmə üçün xarakterik olan hal kimi qiymətləndirilməlidir. Sintez olunmuş birgə polimer nümunələri neft yağlarına özlülük aşqarları kimi tədqiq olunmuş və göstərilmişdir ki, tələbatdan asılı olaraq istənilən molekul kütləyə malik yüksək çıxımlı birgə polimerlər sintez edərək, bu yağlara özlülük aşqarı kimi istifadə etmək olar. Əldə olunan nəticələr sintez edilmiş birgə polimer nümunələrinin yağların özlülük-temperatur xassələrini yaxşılaşdırmağa görə polialkilmetakrilat tipli sənaye aşqarları ilə eyni səviyyədə olduğu halda, termiki təsirlərə qarşı davamlılıqlarına görə onlardan daha yüksək istismar göstəricilərinə malik olduqlarını göstərmişdir ki, bu hal isə stirol manqalarının stabilləşdirici təsiri ilə izah olunmalıdır.

**ƏDƏBİYYAT**

1. Каплан С.З. и Радзевенчук И.Ф. (1982). Вязкостные присадки и загущенные масла. Л.:, Химия, 132 с.

2. Кулиев А.М. (1985). Химия и технология присадок к маслам и топливам. Л.: Химия,. 312 с.

3. Ахмедов А.И., Фарзалиев В.М. и Алигулиев Р.М. (2000). Полимерные присадки и масла, Баку: Элм,. 175 с.

4. Ахмедов А.И. (2002). Состояние исследований по синтезу вязкостных присадок в республике. Азербайджанское нефтяное хозяйство, 4, 37-39.

5. Ахмедов А.И., Аскерова Х.А., Исаков Э.У. и Гамидова Д.Ш. (2009). Синтез вязкостных присадок к смазочным маслам сополимеризацией бутилметакрилата с аллилнафтенатами. Нефтепереработка и нефтехимия, 5, 31-33.

6. Əhmədov Ə.İ., Həmidova C.Ş., İsakov E.U. və Adıgözəlova F.C. (2009). Özlülük aşqarları kimi allilnaftenatların stirolla birgə polimerlərinin sintezi. Azərbaycan Kimya Jurnalı, 2, 119-121.

7. Fərzəliyev V.M., Əhmədov Ə.İ. və Həsənova E.İ. (2009). Mürəkkəb efir yağlarına özlülük aşqarları kimi butilmetakrilat–o-allilfenol birgə polimerlərinin sintezi. AMEA-nın məruzələri, 6, 79-83.

8. Кязимзаде Л.К., Гамидова Д.Ш. и Гасанова Э.И. (2019). Соолигомеры сложных аллиловых эфиров как вязкостные присадки. Международный научный журнал «Молодой ученый». 52 (290), 309-312.

9. J.Sh. Hamidova, L.K. Kazimzade, E.I. Hasanova, E.U. Isakov and S.S. Babayev. (2020). Synthesis of allylcaprylate-styrene copolymers and their research as a viscosity additive to lubricant oils. Chemical Problems, 2 (18), 158-163.

10. Препаративная органическая химия. / Под редакцией Вульфсона Н.С. (1964). Москва: Химия, 440-450.

11. Папок К.К. и Семенидо Е.Г. (1964). Моторные и реактивные масла и жидкости. Москва: Химия, 123.

# POLİMER TULLANTILARI İLƏ ƏLAQƏDAR EKOLOJİ PROBLEMİN HƏLL OLUNMASI İSTİQAMƏTİNDƏ ARAŞDIRMALAR

**Khuseinova A.A ,**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Kimya və biologiya fakültəsi/Azərbaycan
*aminakhuseinova2004 @gmail.com*
Bakı,Azərbaycan

**Rəhimov R.S**
Bakı Mühəndislik Unveristeti
Pedaqoji fakültə
*rrehimov@beu.edu.az*

**Xülasə**

Polimerlərin geniş istifadə olunması onlarıntullantıların miqdarının kütləvi surətdə artmasına səbəb olur və nəticədə ətraf mühitin çirklənməsi baş verir.Bu problemi həll etmək üçün müxtəlif yanaşmalar mövcuddur.Polimer tullantıları ilə əlaqədar ekoloji problemin həllinə2 aspektdən yanaşmaq olar. Birinci haldapolimerlərin sintezi prosesində onlara bioloji destruktiv xassə verməsi ilə əlaqədardır. Bu halda sintez olunan polimerlərbioloji destruktiv xassəyə malik olar. Ondan hazırlanan məmulatlar istifadə müddətini bitirdikdən sonra təbiətə atıldıqda ətraf mühitin təsirlərindən bioloji destruksiyaya uğrayaraq ekoloji problem yaratmayacaq. Ekoloji problemlərin həlli üçün belə yanaşma son onilliklərin işidir və bu sahədə çox saylı tədqiqatlaraparılır. İkinci yanaşma isə polimer tullantılarına destruktiv xassənin verilməsi ilə kompozisiya materiallarının alınmasıdır. Bunun üçün istifadə oluna bilən maddələr sellüloza, nisasta, polisaxaridlər və s. kimi maddələristifadə oluna bilər . Tullantılara həmin xassəni verdikdən sonra o alternativ xammal funksiyasını yerinə yetirir və yenidən istehsal prosesinə qaytarılır. Bunu nəticəsi olaraq polimer tullantılarının ətraf mühiti çirkləndirmə problemi aradan qalxır. Onlar ikinci dəfə istifadə olunur, hazırlanan məmulatlar öz istismar dövrünü qurtardıqdan sonra yenidən təbiətə atıldıqda parçalanma baş verir.

Hal-hazırda dünyanın əksər ölkələrində bioloji destruktiv olmayan polimer sintezi edən böyük istehsal prosesləri mövcuddur.Azərbaycanda da kütləvi miqdar polietilen sintez edən böyük müəssisə var. Bu zavodların yeniləri ilə əvəz edilməsi zaman və böyük maliyyə vəsaiti tələb edən məsələdir. Bioloji destruktiv polimerlərin sintezi üçün lazım xammalların mövcudluğunun da müzakirə obyekti olduğuna görə məsələnibir çox aspektən dəyərləndirmək lazım gəlir.

**Açar sözlər Ekoloji problem -1, bioloji destruktiv polimerlər -2, polimer tullantıları-3,**

Polimer tərkibini karbon, hidrogen, oksigen, azot və digər üzvi və ya qeyri-üzvi maddələrdən əmələ gələn makromolekullar təşkil edir.Polimerlərin növləri çoxdur, lakin dünya miqyasında bir neçə növ əmtəə polimerinin sintezi üstünlük təşkil edir: polietilen (PE), polipropilen (PP), polivinilxlorid (PVC), polietilen tereftalat (PET, PETE), polistirol (PS), polikarbonat (PC), və poli(metil metakrilat) (PMMA). Bu polimerlər termoplastik polimerlərdir.Onların əksəriyyəti (PP, PE, PVC, PS və PMMA) destruksiyaya daha dəvamlı olan tam karbozəncirli polimerlərdir. PET və PC hidroliz və ultrabənövşəyi şüaların təsirinə daha çox həssas olan karbonil qruplarını ehtiva edən polimerlərdir.Son dövrlərdə polimer tullantılarının artması, və ekoloji problemin kəskinləşməsi səbəbindən təbiətə atıldıqda günəş işığı və mikroorqanizmlərin köməyi ilə parçalana bilən bioloji destruktiv polimerlər istehsal olunmağa başlayıb. Bundan əlavə, ətraf mühitə daha az zərər verən polimer tullantılarının hazırlanması istiqamətində araşdırmalar davam edir. Ümumiyyətlə, polimerlərin parçalanmasında havanın oksigeni vətemperaturu, günəş süası və digər təsirlə kimi amillər ən əhəmiyyətli amillərdəndir .Temperaturun, işıq enerjisinin ion şüalanmasının və mexaniki-kimyəvi amillərin təsiri nəticəsində polimerlərin destruksiyası aralıq sərbəst radikalların alınması ilə zəncirvari mexanizm üzrə gedir. . Polimerlərin şüalanması ilə baş verən destruksiya prosesi yalnız polimerlərin qızdırılması şəraitində baş verir. Çünkü bu proses mürəkkəb prosesdir və rabitələrin qırılması nəticəsində( destruksiya) polimerlərin strukturunda dəyisikliklər müsayiət olunur. Destruksiya nəticəsin də polimerin strukturunun dəyişməsi ilə yeni rabitələrin əmələ gəlməsi prosesinin ya qarşısı alına bilər, ya da ki reaksiyanı sürətləndirmək olar. Bu zaman birinci halda reaksiya polimerlərin molekul kütləsinin azalmasına səbəb olur. İkinci halda isə polimerin xassələrinin -elastiklik, ərimə axını indeksi, estetik görüntü və rəng kimi fiziki xüsusiyyətlərin dəyişməsinə səbəb olur . Xüsusiyyətlərdəki bu kimi dəyişikliklər çox vaxt "qocalma" adlanır.Polimerlərin maya dəyərinin aşağı olması ,həmçinin tez-tez sənayedə üstünlük verilir, çünki digər xammallarla müqayisədə daha ucuzdur və məhsul istehsalı tez və asan olur. Bundan əlavə polimer materiallarının əlverişli xammal bazasına , aşağı maya dəyərinə , asan emal üsullarına və alınan məhsulların yararlı istismarıgöstəricilərinə malik olmaları, onlardan texniki təyinatlı məlumat hazırlanmasına şərait yaradırHal -hazırda sənayədə geniş istifadə perspektivi olan bir sıra polimer materialların tətbiq sahələri də kifayətqədər genişdir. Buna misal olaraq ,qida, avtomobil və aviasiya, elektrik-elektronika, tikinti, qablaşdırma, tekstil, fotoqrafiya və kənd təsərrüfatı kimi sektorları nümunə göstərmək olar.Polimerlərin tətbiq sahəsinin kifəyət qədər çox olması, onların xassələrinin tələbata uyğun idarə edilməsinin mümkünlüyü və digər amillər onların tullantıların kütləvi şəkildə əmələ gəlməsinə səbəb olur. Bioloji destruktiv olmayan polimer tullantıları ekoloji problemlərin və həyat fəaliyyəti risklərinin artmasına səbəb olur. Polimerlərin yaratdığı ekoloji problemlərin həlli yollarının təhlili istiqamətində inkişaf dinamikası aşağıdakı kimidir**(Rahima S. Mammadova-2017)**

**,** enerji almaq üçün polimer tullantılarının yandırılması;

1. polimer tullantılarının pirolizi;
2. polimer tullantılarının məqsədyönlü termokrasiyası;
3. polimertullantılarınınsadəikinciltəmizlənməsi;
4. ikincilemalprosesindəpolimertullantılarınınmodifikasiyası;
5. biolojidestruktivpolimervəpolimerkompozisiyalarınınəmələgəlməsi

Polimer tullantılarının yaranma sahələrinə qablaşdırma sənayesi də daxildir. Qablaşdırma sənayesində istehlak edilən miqdar ümumi plastik sənayesi ilə müqayisədə çox deyil. Qablaşdırma materialı kimi istifadə edilən polimer tullantılarının ömrü qısa olur.Şüşə, qab və qutu şəklində olan plastik qablaşdırma materialları sıxlığı az olduğuna görə çəkisiaz olsa da , həcm baxımından çox böyüknisbətlər də olur. Qablaşdırma məqsədləri üçün polimer materialların istifadəsi digər ənənəvi qablaşdırma materialları ilə müqayisədə xammalın ümumi miqdarını azaldır.




**Şəkil 1**. 1- Yüksək gəlirli ölkənin tullantılarının miqdarı
2-Aşağı gəlirli ölkənin tullantılarının miqdarı
3-Ort gəlirli ölkənin tullantılarının miqdarı

Bu, daha az materialla daha çox məhsulu qablaşdırmağı mümkün edir. Məsələn, bir kq polimer materialla 27 kq mayenin (meyvə suyu, soda və s.) qablaşdırılması mümkün olduğu halda, qablaşdırma üçün 1,5 kq alüminium, 4 kq polad və ya 13-14 kq şüşə material lazımdır.

Onun istifadəsi həm materialın istehsalı, həm də emalı üçün istifadə olunan təbii ehtiyatların qorunması deməkdir. Bundan əlavə istifadə olunacaq plastik materialın miqdarı daha az olacağı üçün həm daşınması, həm də istehsalı asan və qənaətcil olacaq. Nəticədə plastik materiallar qablaşdırma məqsədinə istifadəsi daha səmərəlidir. Polimerlər və xüsusilə plastiklər məhsulun istifadə müddətinin bütün mərhələlərində, o cümlədən ilkin emal, istifadə, ətraf mühitə atılma və təkrar emal zamanı destruksiyaya məruz qalır. Bu destruksiya dərəcəsi əhəmiyyətli dərəcədə dəyişir; bioloji destruksiya onilliklər çəkə bilər, lakin sənayə proseslərin də polimerlər saatlar ərzində parçalana bilər.

Polimerlərin parçalanmasının qarşısını almaq üçün texnologiyalar işlənib hazırlanmışdır. Məsələn, polimer stabilizatorları plastik məmulatların istənilən xüsusiyyətlərə malik olmasını təmin edir, onların istifadə müddətini uzadır və təkrar emalını asanlaşdırır. Əksinə, bioloji parçalana bilən əlavələr plastik tullantıların bioloji parçalanmasını yaxşılaşdırmaqla onların destruksiyasını sürətləndirir. Plastik təkrar emalın bəzi formaları polimerin yenidən monomerlərə və ya digər kimyəvi maddələrə tam parçalanmasını əhatə edə bilər.

Təqdiqat obyekti kimi seçilen polietilen sintez ve istismar edilen polietilen dünya miqyasında ən çox sintez və istehsal edilen polimerdir Polietilen il ərzində təxminən 80 miylon ton istehsal olunur. Polietilen bərk , ağ rəngli , termoplastik polimerdir. Polietilen yüksək təzyiq altında radikal , aşağı yaxud da atmosfer təzyiqində polimerləşmə üsulu ilə sintez olunur. Tədqiqatlar göstərir ki, yüksək təzyiqli polietilen makromolekulu tam xətti quruluşlu deyil, ötürülmə reaksiyaları nəticəsində bir qədər yan şaxələrə malik olur. Siqler metodu ilə etilenin polimerləşməsini adi temperatur və atmosfer təzyiqi altında trietilalüminium və titandördxloridin iştirakı ilə aparırlar. Reaksiya poylar olmayan həlledici mühitində , oksigen və rütubətin natamam olduğu şəraitdə aparılır. Polietilenin Fillipss metodu ilə alınması zamanı polietilen , etilenin 3-6 Mpa(30-60 atm) təzyiqdə metal oksidlərinin iştirakı ilə , məsələn , $Al_2O_3{\cdot}SiO_2$ üzərində $CrO_3$ katalizator kimi istifadə etməklə 132 ° C temperaturda alınmışdır . Hər iki üsulla alınan polietilen tam xətti quruluşa malikdir və tam xətti quruluşa malik olduğuna görə yüksək təzyiq altında alınan polietilenlə müqayisədə böyük sıxlığa , yüksək kristallaşma və ərimə temperaturuna malikdir. Polietilen maviyəçalan zəif alovla yanır. Polietilen turşulara , qələvilərə,və üzvi həlledicilərə qarşı dəvamlıdır, otaq temperaturunda və soyuqda üzvi həlledicilərdə həll olmur,amma 70 °C-dən yuxarı temperaturda karbon dörd xloriddə ,trixloretilendə, toluolda , ksilolda şişir və həll olur. Soyudulduqda isə polimer məhlulda çökür.Polietilen qatı nitrat turşusunun təsiri ilə parçalanır Belə üsullar alınan polimer yüksək kimyəvi və suya qarşı dəvamlılığa malik olur,yüksək fiziki-mexaniki və dielektrik göstəricilərlə xarakterizə olunur. Polietilendən təzyiq altında tökmə, ekstruziya və üfürmə üsulları ilə emal etməklə korroziyaya dəvamlı borular,izoylasiya

örtükləri,pylonkalar,müxtəlif məişət məmulatlar, elektrik və radio-televiziya kabelləri, tibbi implantlar, su çənləri, qida qabları və s. hazırlanır




**Şəkil 2.** Dünya üzrə illik polietilen istehsalı

Polietilen istehsalının 2 üsulu vardır: yüksək təzyiq altında aşağı sıxlıqlı, aşağı təzyiq altında orta və yüksək sıxlıqlı polietilen.Aşağı sıxlıqlı polietilen (ASPE) yüksək molekul kütləli poliolefindir Bütün poliolefinlər kimi, ASPE qeyri-toksik və çirkləndirici deyil və yüksək qırılma müqavimətinə malikdir. Sudan daha yüngüldür, kimyəvi maddələrin təsirinə dəvamlıdırvə səffafdır. Buna görə də, aşağı sıxlıqlı polietilen torbalar tez-tez laboratoriya şəraitin də istifadə olunur.Aşağı sıxlıqlı polietilenin möhkəmliyi yüksək sıxlıqlı polietilenin möhkəmliyindən 2 -3 dəfə az olduğundan , adətən təzyiqli boruların istehsalı zamanı aşağı sıxlıqlı polietilendən yalnız kiçik diametri məhdud təyinatlı borular üçün istifadə Polietilen istehsalının 2 üsulu vardır: yüksək təzyiq altında aşağı sıxlıqlı, aşağı təzyiq altında orta və yüksək sıxlıqlı polietilen.Aşağı sıxlıqlı polietilen (ASPE) yüksək molekul kütləli poliolefindir Bütün poliolefinlər kimi, ASPE qeyri-toksik və çirkləndirici deyil və yüksək qırılma müqavimətinə malikdir. Sudan daha yüngüldür, kimyəvi maddələrin təsirinə dəvamlıdır və səffafdır. Buna görə də, aşağı sıxlıqlı polietilen torbalar tez-tez laboratoriya şəraitin də istifadə olunur. Aşağı sıxlıqlı polietilenin möhkəmliyi yüksək sıxlıqlı polietilenin möhkəmliyindən 2 -3 dəfə az olduğundan , adətən təzyiqli boruların istehsalı zamanı aşağı sıxlıqlı polietilendən yalnız kiçik diametri məhdud təyinatlı borular üçün istifadə edilir. Aşağı sıxlıqlı polietilen ( ASPE) yumşaq , yüngül , sərt və çevikdir. Bu termoplastik material həmçinin aşağı temperatura uyğunlaşmaq qabiliyyətinə və yaxşı korroroziyaya dəvamlılıq xüsusiyyətlərinə malikdir. Bu xüsusiyyətlərindən əlavə yaxşı kimyəvi xassələrə və təsir müqavimətinə malikdir ki, bu da aşağı sıxlıqlı polietileni ( ASPE) və istehsal prosesini asanlaşdırır. Hal – hazırda ASPE istehsalı üçün adətən 2 üsuldan istifadə olunur:qarışdırılmış avtoklav və ya boru. Son dövrlərdə aşağı təzyiqli polietilen (ASPE) qaz halında olan etilendən çox yüksək təzyiq və 350°C qədər yüksək temperaturda , katalizator oksidi iştirakı ilə çıxarılır. Bu proses həm uzun, həm də qısa saxələri olan bir polimer quruluşu yaradır. Aşağı təzyiqli polietilen istehsalı polimerləşmə üsuluna görə aparılır . Polimerləşmə üsulu ASPE yüksək təzyiqli üsullara və aşağı təzyiqli üsullara bölünə bilər. Aşağı sıxlıqlı polietilenin əsas xüsusiyyətləri aşağıdakılardır

1. Spirtlərə, turşulara və qələvilərə qarşı müqavimətin çox olması
2. Çox yaxşı elektrik izolyasiya xüsusiyyətlərinə malik olması
3. Su udma qabilliyyəti olmaması
4. Aşağı temperaturda yüksək təsir müqavimətinə malik olması
5. Emal prosesi sadə olması
6. Bir sıra üzvü və qeyri-üzvü maddələrə,yəni-mineral yağlara , halogenləşdirilmiş və aromatik karbohidrogenlərə və oksidləşdirici maddələrə qarşı aşağı müqavimətin olması
7. Normal temperatur müqaviməti 80 dərəcədir,lakin dəvamlı və daha qısa dövrlər üçün 95 dərəcədir
8. Aşağı sıxlıqlı polietilen polimeri təkrar emal olunan bir polimerdir

Polietilen tullantısının istismar prosesindən sonra xassələrinin zəifləməsi istiqamətində tədqiqat işi aparılır. Bu işdə istismar prosesindən sonra polietilenin xassələrinin ilkin polietilenin göstəricilərindən nə qədər dəyişdiyinin müqayisəli tədqiqi təhlil olunub. Onların xassələrinin dəyisəndən sonra gələcəkdə onların xassələrini funksional qruplu birləşmələrin köməyi ilə modifikasiya etməyi,onların dəyismiş xassələrini yaxşılasdırmaq nəzərdə tutulur. Polietilenin oksigen

tərkibli birləşmələrin köməyi ilə modifikasiya edəndə oksigen tərkibli qruplar əmələ gəlir :spirt, aldehid, keton və s.

Eksperiment hissə dəaşağı sıxlıqlı polietilenin istismarı zamanı onun struktur-kimyəvi tərkibinin və göstəricilərinin necə dəyisdiyi istiqamətində araşdırmalar aparırmışdır .Bu zaman aşağı sıxlıqlı polietilenin istismar prosesində kimyəvi tərkibinin və göstəricilərinin dəyisdiyi müşahidə edilmişdir.ASPE-nin istismarı prosesində əmələ gələn funksional qrupların modifikasiya əlavələri ilə çarpaz əlaqəsi nəticəsində alınan kompozisiyalar təhlil edilmişdir. . Bu prosesdə alınan polimer birləşmələrinin antimikrob göstəricilərinin mövcudluğu imkanları araşdırılmışdır. Tərkibində N, S və digər elementləri olan antimikrob aşqarların işlənmiş ASPE ilə qarşılıqlı əlaqəsi, indeksləri, həmçinin əldə edilmiş polimer kompozisiyalarının antimikrob xassələri üzrə tədqiqatlar davam etdirilir. Aparılmış tədqiqatlar göstərir ki, modifikasiya prosesində təkrar emal zamanı antimikrob aşqarının işlənmiş polimerlə çarpaz bağlanması alınan məhsulun xidmət müddətini artırır. Antimikrob əlavənin ana kütlədən ekstraksiya etməməsi səbəbi komponentlər arasında gedən çarpaz əlaqə prosesinin nəticəsində olduğu izah edilir. Eyni zamanda ətraf mühitin qorunmasına kömək edir. Tədqiqat işləri nəticəsin də polimer kompozisiyalarının alınması zamanı istismar olunan polimerin qocalma dərəcəsini və maddənin istismar istiqamətini nəzərə almaq lazımdır. Eyni zamanda, ASPE-nin qocalma dərəcəsini - gel- və zol-fraksiyasının, struktur və kimyəvi maddələrin əmələ gəlməsini nəzərə almaq vacibdir.**(Rahima S. Mammadova-2020)**

**Tədqiqat metodu.**

Polimer kompozisiyası hazırlanması zamanı istifadə olunan polimer komponentlərin qarışdırılması üçün müxtəlif üsullar var . Polimerlərin soyuq halda qarışdırılması mümkündür və labaratoriya ekstruder də eyni zaman da, vərdənə də alınır . Ekstruder də alınan zaman temperatur verilir. Vərdənə də alınma prosesi zamanı temperatur verilmir, sıxılma , preslənmə vasitəsilə əldə olunur Bu zaman ərintidə modifikasiya gedir. Reaksiyanın mexanizmi belədir ki,modifikasiya soyuq halda gedir sıxılır vərdənədəalınır. Bu zaman homogen kompozisiya alınır. Alınan kompozislərin təsirindən tikilmələrdə gedə bilər fiziki- kimyəvi modifikasiya da baş verə bilər. Alınan polimerin xassələrini müəyyənləşdirmək üçün ərintinin axıcılıq göstəricisi müəyyən edilməlidir . Axıcılıq göstəricisi qr/ 10 dəqiqə ilə hesablanır . Viskozimetr ilə ölçülür.Polimerlər müxtəlif aqresiv mühitlərdə və ya müxtəlif kimyəvi birləşmələrin təsirindən həll olması, şisməsi, sismə dərəcəsi, məhdud ,qeyri-məhdud şismə təyin oluna bilər . Bundan əlavə fiziki -kimyəvi təqdiqat metodları da var . Kompozisiyanı müxtəlif fiziki təsirlərə məruz qoyub onun möhkəmlik həddini, dartırmada nisbi uzanmanı öyrənmək mümkündür

**Nəticə**

Aparılan araşdırmaların nəticəsində , məlum olur ki, polimerlərə bioloji destruktiv xassəsini müxtəlif üsullarla təyin etmək olar. Alınan məhsulların emal və istismarı üçün faydalı xassələrə malik olur, onlardan texniki təyinatlı məhsulların hazırlanması məqsədəuyğundur. Aparılan elmi tədqiqat işi elmi praktiki əhəmiyyət və ekoloji əhəmiyyət kəsb edir.

Ədəbiyyat siyahısı

1. O.H.Ələkbərov , A.Ə.Əzizov, E.O.Ələkbərov -Yüksək molekullu birləşmələr kimyası (2004)
2. Y.C.Qasımova, V.S.Həsənov -Yüksək molekullu birləşmələr kimyası (2016)
3. Rahima S.Mammadova (2020)- Research of application possibilities of biomass used as biologically active additive in polymer composition
4. Rahima S.Mammadova (2017)-Expediency Of Biology Activity Providing During The Modification At The Process Of Secondary Treatment Of Polymers
5. Rahima S.Mammadova (2017)-Application Perspectives Of Nanosize Composites As The Components Of Polymer Compositions

# TƏRKİBİNDƏ KÜKÜRD VƏ AZOT ATOMLARI SAXLAYAN TİOANHİDRİDLƏRİN SİNTEZİ

**N.M.NƏZƏROV, Z.T.İSRAFİLOVA, S.S.BABAYEV, M.E.İSAKOV**

AMEA akad. Ə.M.Quliyev adına Aşqarlar Kimyası İnstitutu
Ə.M.Quliyev adına AMEA Aşqarlar Kimyası İnstitutu
*nazarov-nazar@rambler.ru*
*mir.ali.isakov.93@gmail.com*
AZƏRBAYCAN, BAKI ŞƏHƏRİ

**XÜLASƏ**

Tərkibində çoxfunksiyalı kükürd və azot atomlarını saxlayan yeni üzvi birləşmələr kimi rodanidlərin müxtəlif yeni törəmələrinin axtarışı həmişə tədqiqatçılar üçün hədəf olmuşdur. Onlar bu birləşmələrin yeni nümayəndələrini sintez etməklə yanaşı, qeyd olunan birləşmələrin yeni tətbiq sahələrinin müəyyənləşdirilməsinə nail olmuşdurlar. Bu tədqiqat çərçivəsində yeni transformasiya məhsullarından ibarət rodanidlərin heterosiklik törəmələri sintez edilmiş, tərkibi və quruluşu tədqiq edilmişdir. Üçkomponentli kondensləşmə reaksiyaları əsasında kalium rodanid ilə müxtəlif aminlər, aldehidlər əsasında tioanhidridlər sintez edilmişdir. Sintez olunan birləşmələr kristal maddələrdir. Bu birləşmələrin tərkibinə rodanid fraqmenti daxil olduğuna görə antioksidant xassə göstərmək qabiliyyətinə malikdir. Eyni zamanda bu birləşmələr fizioloji aktiv birləşmələrdir. Gələcəkdə bu birləşmələrdən antioksidant aşqarlar, potensial dərman preparatları və bioloji əlavələr kimi tətbiq imkanlarına dair sistematik tədqiqatlar aparmaq mümkün olacaq.

**РЕЗЮМЕ**

Исследование синтеза и функциональных свойств тиоангидридов.

Поиск различных новых производных роданидов, таких как новые органические соединения, содержащие многофункциональные атомы серы и азота, всегда был целью исследователей. Помимо синтеза новых представителей этих соединений, им удалось выявить новые области применения этих соединений. В данной работе были синтезированы гетероциклические производные роданидов, состоящие из новых продуктов трансформации, изучены их состав и структура. В будущем появится возможность проводить систематические исследования возможности использования этих соединений в качестве антиоксидантных присадок, потенциальных лекарств и биологических добавок. На основе реакций трехкомпонентной конденсации с роданидом калия синтезированы тиоангидриды на основе различных аминов и альдегидов. Синтезированные соединения представляют собой кристаллические вещества. Благодаря включению в состав этих соединений роданидного фрагмента оно обладает способностью проявлять антиоксидантные свойства. В то же время эти соединения являются физиологически активными соединениями.

**SUMMARY**

Study of the synthesis and functional properties of thioanhydrides.

The search for various new thiocyanate derivatives, such as new organic compounds containing multifunctional sulfur and nitrogen atoms, has always been the goal of researchers. In addition to the synthesis of new representatives of these compounds, they were able to identify new areas of application of these compounds. In this work, heterocyclic thiocyanate derivatives were synthesized, consisting of new transformation products, and their composition and structure were studied. In the future, it will be possible to conduct systematic studies of the possibility of using these compounds as antioxidant additives, potential drugs and biological additives. Thioanhydrides based on various amines and aldehydes were synthesized based on three-component condensation reactions with potassium rhodanide. The synthesized compounds are crystalline substances. Due to the inclusion of rhodanide fragment in the composition of these compounds, it has the ability to show antioxidant properties. At the same time, these compounds are physiologically active compounds.

**AÇAR SÖZLƏR**: **Kalium rodanid, salisil aldehidi, dibutilamin.**

## GİRİŞ

Tərkibində azot və kükürd heterotsiklik heteroatom tərkibli heterotsiklik birləşmələr təbiətdə çox geniş yayılmış və canlı orqanizmlərdə xüsusi rol oynayır. Onlar yüksək bioloji aktivliyə malik olub alkoloidlər, vitaminlər, fermentlər və nuklein turşusu tərkibində iştirak edərək bioloji həyatın inkişafını tənzimləyir. İndiyə qədər bu istiqamətdə aparılan tədqiqatlar nəticəsində müəyyən olunmuşdur ki, rodanidlər neft məhsullarının oksidləşməsinin

qarşısını alan ən səmərəli aşqarlardır[1-2]. Həmçinin, onlar sürtkü materiallarının (sürtkü yağları), emulqatorların, xlorlaşdırılmış karbohidrogenlərin stabilləşməsi üçün stabilizator rolunu oynayır. Rodanidlər eyni zamanda kənd təsərrüfatında insektisid və toxumların zərərsizləşdirilməsində geniş tətbiq olunur[2-4]. Bu birləşmələr tibbdə antimikrob təsirə də malikdir. Digər tərəfdən rodanidlər bir sıra tərkibində azot və kükürd saxlayan heterotsikillərin sintezində ən münasib sintonlardır [3-8]. Bütün yuxarıda deyilənləri nəzərə alaraq, müxtəlif quruluşlu alkilrodanidlərin yeni törəmələrinin sintez edilməsi və onların funksional xassələrinin tədqiqi aktuallıq kəsb edir.

## TƏDQİQAT METODU

Təcrübə 1:1:1 mol nisbətində 70˚C-dən yuxarı olmamaq şərti ilə 6 saat ərzində aparılır. Katalizator kimi sirkə və ya xlorid turşusundan istifadə olunur. Təcrübə izopropil spirtində aparılır. Mexaniki qarışdırıcı, termometr və əks soyuducu ilə təchiz olunmuş yumrudibli kolbaya 9,7 q (0,1 mol) kalium rodanid tökülür, üzərinə etilamin 4,5 q (0,1 mol) məhlulun üzərinə əlavə edilir və 20 dəqiqə ərzində reaksiya temperaturuna çatana qədər qızdırılır daha sonra reaksiya mühitinə 12,2 q (0,1 mol) salisil aldehidi tökülür və ora 1-2 damcı katalizator əlavə edilir. Reaksiyanın gedişinə nazik təbəqəli xromatoqrafiya ilə nəzarət edilir. Alınmış ağ kristallik birləşmələr əvvəlcə hidrogen xloridin durulaşdırılmış məhlulu ilə yuyulur. Sonra suda, etil spirtində və nəhayət dixlormetanda yenidən kristllaşma metodu ilə təmizlənir.

Digər maddələr də bu metoda uyğun sintez edilmişdir.

## NƏTİCƏ

Neft məhsullarının istismar xassələrini yaxşılaşdıran yeni nəsl daha təsirli üzvi birləşmələrin, antioksidantların və digər funksional xassəli aşqarların məqsədyönlü sintezi aktual məsələlərdən biridir. Sintez olunmuş yeni birləşmələr neft emalı qurğularında yağların oksidləşməsi prosesində inhibitor kimi tətbiq edilir. Bu birləşmələrin bəziləri motor yağlarında yuyucu-dispersedici aşqar kimi sınaqlardan uğurla çıxmışdır və həmin sahədə tətbiq üçün tövsiyə edilmişdir. Yuyucu və dispersedici aşqarlar daxili yanma mühərriklərinin detallarındakı çöküntülərin azaldılması üçün nəzərdə tutulur. Nəticədə belə aşqarların əhəmiyyətli dərəcədə spesifik təsiri nəticəsində porşen halqalarının hərəkətinin təmin edilməsi və onların yanmasının qarşısının alınması nəticəsində mühərriklərin işləmə müddəti artırılır. Belə aşqarları əksər hallarda, detergentlər və dispersedicilər adlandırırlar. Çoxfunksiyalı təsirə malik olan tioanhidridlərin sintezi aşağıdakı sxem üzrə aparılmışdır:




3-hydroxybenzaldehyde

potassium thiocyanate

**R** —$C_4H_9$ (I), – $(C_4H_9)_2$ (II), – $C(CH_3)_3$ (III)

Sintez etdiyimiz tioanhidridlərin (I-III) quruluşu İQ spektroskopiya vasitəsilə təsdiq edilmişdir. Həmin maddələrdəki qruplar aydın şəkildə dalğa tezliyi ilə təyin edilmişdir.

I maddənin İQ spektri




*N*-(butylcarbamothioyl)-
-3-hydroxybenzamide




Xarakterik zolaq (sm-1): 2062 olması burada S-C≡N qrupu saxlayan birləşmənin olduğunu göstərir. $\nu_{OH}$=3390 $sm^{-1}$ hidroksil qrupunun udma zolağı, $\nu_{C-S}$=769 $sm^{-1}$ C-S rabitəsinin səciyyəvi udma zolağıdır. $\nu_{CH}$=1567,96 $sm^{-1}$ və 1455 $sm^{-1}$ benzol həlqəsində C-H rabitələrin valent titrəmələrinin udma zolağını göstərir. ν =1400-1600 $sm^{-1}$ arası udma zolaqları bu maddədə aromatik nüvənin olduğunu göstərir. $\nu_{C-H}$=2924,58 $sm^{-1}$ Ümumi maddənin və həlledicinin (vazelin yağı) $CH_3$, $CH_2$, CH-qruplarında C-H rabitələrin valent titrəmələrinin udma zolağını göstərir.

I maddənin fiziki kimyəvi parametrləri aşağıdakı kimidir.

Ərimə temperaturu 140-142 °C təşkil edir. Çıxım 77% təşkil edir. $C_{12}H_{16}O_2SN_2$ bu maddədə C-nun kütlə payı 57,14%, H-nin kütlə payı 6,34 %, O-nin kütlə payı 12,7%, S-ün kütlə payı 12,7 %, N-un kütlə payı 11,1 %-dir.

II maddənin İQ spektri




*N*-(dibutylcarbamothioyl)-3-
-hydroxybenzamide




İlk öncə rodanid qrupuna baxırıq, xarakterik zolaq (sm-1): 2067,38 rodanid qrupunun udma zolağını göstərir. $\nu_{C-S}$=702 $sm^{-1}$ udma zolağını göstərir. 1455,92 və 1574,65 $sm^{-1}$ aromatik nüvənin səciyyəvi udma zolaqlarıdır. $\nu_{OH}$=3389,04 $sm^{-1}$ hidroksil qrupunda OH rabitələrin valent titrləmələrinin udma zolağıdır.

II maddənin fiziki kimyəvi parametrləri aşağıdakı kimidir.

Ərimə temperaturu 145-147 °C təşkil edir. Çıxım 82% təşkil edir. $C_{16}H_{24}O_2SN_2$ bu maddədə C-nun kütlə payı 62,34%, H-nin kütlə payı 7,79%, O-nin kütlə payı 10,38%, S-in kütlə payı 10,38%, N-un kütlə payı 9,09%-dir.

III maddənin İQ spektri



*N*-(*tert*-butylcarbamothioyl) benzamide




$\nu_{S-C\equiv N}$=2062,95 rodanid qrupunun udma zolağıdır. $\nu_{C4H9}$=2925,94 $sm^{-1}$ butil qrupunun $CH_3$ və $CH_2$ radikallarında C-H rabitənin valent titrləmələrinin udma zolaqlarıdır. $\nu_{C-H}$=1567,91 $sm^{-1}$ aromatik nüvənin udma zolağını göstərir. $\nu_{N=C-R1-R2}$ =1690 $sm^{-1}$ N=C (Şiff əsası) səciyyəvi udma zolağını bildirir.

III maddənin fiziki kimyəvi parametrləri aşağıdakı kimidir.

Ərimə temperaturu 184°C təşkil edir. Çıxım 80% təşkil edir. $C_{12}H_{16}N_2SO$ bu maddədə C-nun kütlə payı 61,1%, H-nin kütlə payı 6,78%,N-un kütlə payı 11,86%, O-nin kütlə payı 6,77%, S-ün kütlə payı 13,55 %-dir.

**ƏDƏBİYYAT SİYAHISI**

1. V.M.Fərzəliyev, Z.T.Məmmədova, A.A.Həsənli, İ.A.Rzayeva, Ə.R.Sucayev, E.N.Qəribov, N.M.Qriqoryeva/ Rodanidlərin yeni alkil və aril törəmələrinin funksional xassələrinin tədqiqi/ Milli Aviasiya Akademiyasının Elmi Əsərləri, (2019), 21(1), s. 44 - 49.
2. Z.T. İsrafilova/Rodanidlərin yeni heterotsiklik törəmələrinin sintezi və tədqiqi/Gənc tədqiqatçı jurnal. VII cild, № 1, (2021)
3. Z.T.İsrafilova, V.M.Farzaliyev, A.S.Sujayev/ Some Thiocyanate Containing Heterocyclic Compounds: Synthesis, Bioactivity and Molecular Docking Study/Chemistryselect journal. (January 2023), p. 1-11
4. Synthesis and bioactivity of novel rhodanide compounds/ P.Taslimi, A.Sujayev
5. Synthesis and root forming activity of the inclusion complexes of heterocyclic thioanhydrides with arabinogaltan/Ye.S.Sycheva, I.N.Anuarbekova, D.B.Markina, M.S.Mukanova/Chemical Journal of Kazakhstan/Volume 2, Number 82 (2023),89-98
6. A new cyclic thioanhydride derived from chlorophyll a and its aurophilic properties/ Viktor Pogorily, Nikita Kirin, Andrey Mironov, Mikhail Grin/Dyes and Pigments/ Volume 184, (January 2021), 108858
7. Atroposelective Synthesis of Axially Chiral Thiourea and Imides by NHC-Catalyzed Desymmetrizative Amidation/ Yingtao Wu, Guangfan Zheng, Jiaqiong Sun/ChemRxiv journal, (06 december 2023), version 1
8. Synthesis, spectral characterization, antibacterial, cytotoxic evaluation anddocking studies of new urea and thiourea derivatives/ Shanmugam Ramaswamy1, Deepak Kongara2*, DL Priyanka 3, Ramya Gade3, Krishna Raj R4 & Gayathri R/ Indian Journal of Biochemistry & Biophysics Vol. 59, (July 2022), pp. 767-776

# N-METİLPİRROLİDONPERXLORAT KATALİZATORU İŞTİRAKINDA 2,4,5-TRİFENİL-1-(4-(FENİLDİAZENİL)FENİL)-1H- İMİDAZOLUN SİNTEZİ VƏ TƏDQİQİ

**Orucova N.S., Cəfərova R.Ə., Məmmədov A.M., Əzizbəyli E.İ., Həsənov E.K**

*Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Y.H.Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutu, Bakı ş., Xocalı 30, AZ 1025*
*Bakı, Azərbaycan*
*e-mail:nargiz.orucova@list.ru*

**XÜLASƏ**

Bildiyimiz kimi imidazollar geniş tətbiq sahələrinə malik olduqlarından imidazol sintezinə olan maraq günü-gündən artır. Əvvəllər imidazolların sintezində istifadə olunan üsullarda reaksiya şəraitinin uzunmüddətli və sərt olması, eyni zamanda məhsulların kiçik çıxımla alınması tədqiqatçılar tərəfindən yeni üsulların işlənib hazırlanmasını aktuallaşdırır. Hazırda imidazol sintezində müasir yanaşmalar tətbiq edilir. Təqdim olunan tezis materialında imidazolların sintezi zamanı N-metilpirrolidonperxlorat ion maye katalizatorundan istifadə olunur. Bunun önəmli səbəbləri var. İon maye katalizatorlarıyla gedən reaksiyalar qısa müddətli olur, reaksiya məhsullarının çıxımı yüksək olur, bu katalizatorlar suda həll olaraq reaksiya məhsullarından asanlıqla ayrılır, bir neçə dəfə istifadə oluna bilir , ekoloji cəhətdən təmizdir və s... Beləliklə, qısa vaxtda və yüksək çıxımla 2,4,5-trifenil-1-(4-(fenildiazenil)fenil)-1H-imidazolu sintez olunmuşdur.

Sintez olunmuş imidazolun fiziki-kimyəvi xassələri müəyyən olunmuşdur. Birləşmənin quruluşu $^{1}$H-NMR və İQ spektroskopiya üsulları vasitəsi ilə tədqiq edilmişdir. Nümunənin iki ölçülü HSQC NMR spektri çəkilmiş və hidrogensiz karbon atomları müəyyən edilmişdir.

**ABSTRACT**

As we know, imidazoles have a wide range of applications, so the interest in imidazole synthesis is increasing day by day. The long-term and harsh reaction conditions in the methods previously used in the synthesis of imidazoles, as well as the low yield of the products, make it urgent for researchers to develop new methods. Currently, modern approaches are applied in imidazole synthesis. In the presented thesis material, N-methylpyrrolidone perchlorate ionic liquid catalyst is used during the synthesis of imidazoles. There are important reasons for this. Reactions with ionic liquid catalysts are short-term, the yield of reaction products is high, these catalysts are easily separated from the reaction products as a solution in water, they can be used several times, they are environmentally friendly, etc. So, in a short time and with a high yield, 2.4 ,5-triphenyl-1-(4-(phenyldiazenyl)phenyl)-1H-imidazole was synthesized.

Physico-chemical properties of synthesized imidazole were determined. The structure of the compound was studied by means of 1H-NMR and IR spectroscopy methods. A two-dimensional HSQC NMR spectrum of the sample was taken and the hydrogen-free carbon atoms were determined.

**AÇAR SÖZLƏR: İmidazol, sintez, ion maye katalizatorları**

**Giriş**

İmidazollar heterotsiklik kimyanın ən önəmli birləşmələridir. Bu birləşmələr çox unikal xassələrə malikdirlər. Bu birləşmələr təbiətdə bir sira təbii birləşmələrin, o cümlədən histamin, histidin, purin, nuklein turşuları və s. tərkibinə daxildir. Eyni zamanda bəzi sintetik birləşmələrin əsasını da imidazol halqası təşkil edir. Imidazol əsaslı dərman kimyası inkişaf etmiş, bir sira xəstəliklərin müalicəsində istifadə olunan dərmanların tərkib hissəsində imidazol halqasının mövcudluğu imidazollara olan marağı artırmışdır. Bioloji cəhətdən aktiv olan imidazolların ən geniş tətbiq sahələrində biri farmakologiyadır. Belə ki, imidazol tərkibli birləşmələrin əksəriyyəti QİÇS, malyariya, xərçəng, diabet, müxtəlif orqan və toxumaların iltihabı və s. bir çox xəstəliklərin müalicəsində dərman maddəsi kimi istifadə olunurlar[1].

Müasir kimyanın ən qlobal problemi olan korroziya probleminin həllində də imidazollardan istifadə olunur. Bəzi imidazollardan və onların törəmələrindən korroziya yaradan sulfat reduksiyaedici bakteriyalara qarşı inhibitor-bakterisid kimi istifadə olunması həm iqtisadi itkilərin qarşısını almağa,

həm də ekoloji problemlərin həllinə kömək edir. Bu birləşmələr metal təbəqənin üzərində qoruyucu qat yaratmaqla sulfat-reduksiyaedici bakteriyaların metalların səthində korroziya yaratmasının qarşısını alır [2]. Suda həll olan bəzi imidazollardan kənd təsərüfatında bitki böyütmə tənzimləyiciləri kimi istifadə olunurlar.

İmidazollar sənayedə də istifadə olunurlar. Lüminnessent xassəli imidazollar LED sənayesində və deffektoskopiyada tətbiq olunurlar [3].

Tətbiq sahələrinin bu qədər geniş olması imidazol sintezinə marağı artırır. İmidazolların səmərəli sintezi müasir kimyanın qarşıya qoyduğu əsas problemlərdən biridir. Imidazolların sintezində son dövrlərdə ion maye katalizatorlarından geniş istifadə olunur və imidazol sintezinə maraq günü-gündən artır [4].

**TƏDQİQAT METODU**

Təqdim olunan tezis materialında ion tipli N-metilpirrolidonperxlorat katalizatorunun iştirakında qısa vaxtda və yüksək çıxımla 2,4,5-trifenil-1-(4-(fenildiazenil)fenil)-1H-imidazolun sintezindən bəhs olunur. Reagentlər olaraq benzil, ammonium-asetat, benzaldehid, p-aminoazobenzol və həlledici olaraq etil spirti götürülmüşdür. Reaksiya aşağıdakı sxem üzrə gedir:




Sxem. 2,4,5-trifenil-1-(4-(fenildiazenil)fenil)-1Himidazolun sintezi

Sintez 34 dəqiqə müddətində başa çatır. Alınan məhsul buzlu su ilə qarışdırılaraq süzülür. Beləliklə katalizatordan təmizlənən bərk kütlə qurudulur və etil spirtində rekristalizasiya olunur. Məhsulun çıxımı 75.6 % təşkil edir.

Birləşmənin quruluşu $^{1}$H-NMR və İQ spektroskopiya üsulları vasitəsi ilə tədqiq edilmişdir. $^{1}$H,$^{13}$C və HSQC NMR spektrləri "BRUKER" firmasının istehsalı olan 300,18 MHz tezlikli NMR-Fourier-300 spektrometrində otaq temperaturunda, İQ spektrləri isə "BRUKER" firmasının istehsalı olan ALPHA İR-Fourier spektrometrində 600-4000 $sm^{-1}$ dalğa ədədi intervalında çəkilmişdir.

Spektral və analitik məlumatlar:

2,4,5-trifenil-1-(4-(fenildiazenil)fenil)-1H- imidazol**.** Maddənin formulu: $C_{33}H_{24}N_4$, Molekul kütləsi: Mr=476.27, Ərimə temperaturu:135$^{\circ}$C

Nümunənin iki ölçülü HSQC NMR spektri çəkilmiş və hidrogensiz karbon atomları (128.82, 131.07, 132.99, 136.38, 150.56, 152.66, 154.77) müəyyən edilmişdir [5].




**Şəkil.** Nümunənin HSQC NMR spektri

$^{1}$H-NMR (acetone-$d_6$δ, m.h.): 7.43-7.45 (m., 1H), 7.45-7.47 (m., 1H), 7.54-7.58 (m. 5H), 7.59-7.62 (m., 2H), 7.62-7.64 (m., 2H), 7.64-7.67 (m., 1H), 7.75-7.82 (m., 2H), 7.93-7.95 (m., 1H), 7.95-7.99 (m., 3H), 7.99-8.02 (m., 4H), 8.02-8.05 (m., 2H),$^{13}$C-NMR: 121.82, 122.63, 123.96, 128.82, 128.99, 129.26, 129.28, 129.59, 131.07, 131.72, 132.99, 135.11, 136.38 (C, Ar.) 150.56, 152.66, 154.77 (C-N)

İQ ($sm^{-1}$): ν-1659 (C=N), δ-681, 718, 750, 847, ν-1303 (C-N), ν-1572 (C-C), ν-1618 (N=N) [5]

**NƏTİCƏ**

N-metilpirrolidonperxlorat katalizatoru iştirakında 2,4,5-trifenil-1-(4-(fenildiazenil)fenil)-1H-imidazolu sintez olunmuş, onun fiziki-kimyəvi xassələri tədqiq olunmuş, spektral və analitik məlumatları verilmişdir. Bu imidazoldan antimikrob, inhibitor bakterisid və fülleresent maddə kimi istifadə oluna bilər.

**ƏDƏBİYYAT SİYAHISI**

1. Raghuram Gujjarappa, Arup K. Kabi, Sattu Sravani, Aakriti Garg, Nagaraju Vodnala, Ujjawal Tyagi, Dhananjaya Kaldhi, Ravichandiran Velayutham, Virender Singh, Sreya Gupta, Chandi C. Malakar.Overview on Biological Activities of Imidazole Derivatives. Nanostructured Biomaterials, pp.135–22

2. Jeenat Aslam, Ruby Aslam, Chandrabhan Verma.İmidazole and Its Derivatives as Corrosion Inhibitors. In book: Organic Corrosion Inhibitors, 2021, pp.95-122

3. Mikhail Y. Berezin,Jeff Kao. Samuel Achilefu. pH-Dependent Optical Properties of Synthetic Fluorescent Imidazoles. Chemistry, 2009, 15(14): 3560–3566.

4. Məmmədov A.M., Cəfərova R.Ə., Əliyev B.M., Məmmədova R.R., Orucova N.S. Üç və dördəvəzli imidazolların sintezi. Gənc tədqiqatçı, 2020, Vol. 4, No.1, pp. 27-37

5. Orujova N.S., Mammadov A.M., Jafarova R.A.,Yolchuyeva U.J., Ahmadbayova S.F. Synthesis and Study of Diphenyl and 4-(Phenyldiazenyl)Phenyl Based Tetrasubstituted İmidazoles in the Presence of İonic Liquid Catalysts. The journal “ Processes of Poetrochemistry and oil Refining” (PPOR) , 2023, №2 , 235-245

# İZOPRENIN (SKI-3) BNK (SKN-40), POLIVINILXLORID (PVX) VƏ POLIVINIL ASETAT (PVA) ILƏ MODIFIKASIYASI

**SƏBINƏ RƏHİMOVA**
Azərbaycan-Fransız Universiteti
Kimya
*sabinarahimova.d@gmail.com*
BAKI, AZƏRBAYCAN

**RƏSUL RƏHİMOV**
Bakı Mühəndislik Universiteti
Kimya-Biologiya
*rrahimov@beu.edu.az*
BAKI, AZƏRBAYCAN

**XÜLASƏ**

Müasir dövrdə sənayedə elastomerlərdən hazırlanan əhəmiyyətli kompozit materiallarına olan tələbatı ödəmək üçün onların keyfiyyətinin və istismar müddətinin yaxşılaşdırılması problemi xüsusi əhəmiyyət kəsb edir. Bu problemin həlli vacibdir, çünki məhsulların istismar müddətinin artması, istehsal həcmini genişləndirmədən əlavə istehsala bərabərdir və bu da xammal, material və əmək ehtiyatlarına əhəmiyyətli dərəcədə qənaət etmək deməkdir.Hazırda yeni monomerlərin hesabına kauçukların çeşidini genişləndirmək üçün ehtiyatlar praktiki olaraq tükənmişdir, buna görə də elastomer materiallarının istehsalı zamanı yenilərinin sintezi deyil, ənənəvi iri tonnajlı kauçuklardan səmərəli yollarla istifadə etmək daha məqsədəuyğundur. Bu müxtəlif elastomerləri birləşdirməklə və ya onları kimyəvi cəhətdən aktiv, yüksək və aşağı molekullu birləşmələrin tətbiqi ilə modifikasiya etməklə yeniləri əldə edilir.Kimyəvi modifikasiya elastomerlərin xassələrini yaxşılaşdırmaq üçün ən əhəmiyyətli üsullardan biridir, çünki elastomer materiallarının istehsalı texnologiyasında əhəmiyyətli dəyişikliklər etmədən arzu olunan xassələri əldə etməyə imkan verir.Aparılan elmi tədqiqat işinin məqsədi izopren kauçuklarının texnoloji və fiziki-mexaniki xassələrini təkmilləşdirmək məqsədi ilə onların aktiv vulkanlaşdırıcı təsirə malik, yüksək və aşağı molekullu birləşmələrlə modifikasiyasının effektivliyinin qiymətləndirilməsidir.Tədqiqat işində butadien-nitril BNK, polivinilxlorid (PVX) və polivinilasetat (PVA) tərkibli yüksək molekullu birləşmələrin, müxtəlif kütlə hissələrinin izopren kauçukunun texnoloji xassələrinə təsiri və kiçikmolekullu tikici agentlərin, metal oksidlərin, texniki karbonun iştirakı ilə emal prosesləri öyrənilməklə resept hazırlanmışdır. Sürətləndirici heksaxlorparaksilol və vulkanlaşdırıcı tikici agent dikumilperoksidin qarışıqların quruluş xassələrinə və formalaşma xususiyyətlərinə təsiri öyrənilmişdir. Modifikasiya olunaraq əldə edilmiş elastomer materiallarının çox komponentli sisteminin fiziki-kimyəvi xassələri elmi əhəmiyyət kəsb edən müasir ölçü cihazlarından EPR, Furye spektroskopiya, DTA, həmçinin Flori-Renar nəzəriyəsinə əsasən zol-gel analizləri əsasında müəyyən edilmişdir.Modifikasiya olunmuş izopren kauçuku əsasında yüksək temperatura davamlı və adgeziya xassələri yüksək olan elastomer materialı alınmışdır.

**AÇAR SÖZLƏR: İzopren,polivinil asetat, polivinilxlorid,butadien-nitril**

## GIRIŞ

İşin aktuallığı: Müasir mərhələdə sənayenin elastomerlərdən hazırlanan ən əhəmiyyətli kompozit materiallara olan tələbatını ödəmək üçün onların keyfiyyətinin və istismar müddətinin davamlı olaraq yaxşılaşdırılması problemi xüsusi əhəmiyyət kəsb edir.Modifikasiya elastomerlərin xassələrini yaxşılaşdırmaq üçün ən əlçatan üsullardan biridir, çünki elastomer materialların istehsalı texnologiyasında əhəmiyyətli dəyişikliklər etmədən arzu olunan xassələri əldə etməyə imkan verir.

Müxtəlif məhsulların istismar müddətinin artırılması geniş çeşidli elastomer xassələrini, xüsusilə, aşınma müqaviməti, yorğunluğa davamlılıq, yırtılmaya (cırılmaya) qarşı müqavimət, termiki qocalma, maye mühitə qarşı müqaviməti və s. yaxşılaşdırmadan qeyri-mümkündür. Buna görə də, çoxfunksiyalı fəaliyyətə malik modifikatorların axtarışı ilə bağlı tədqiqatlar böyük praktiki əhəmiyyət kəsb edir. Bu

problemin həlli elastomer qarışıqların formulalarını birləşdirməyə, komponentlərin sayını azaltmağa və onların dozalanma prosesini asanlaşdırmağa imkan verəcəkdir.

İzopren kauçukları üçün modifikasiyaedici əlavələrin məqsədyönlü şəkildə axtarılması işində əsas çətinlik, onların tikilmə prosesində fəaliyyət qanunauyğunluğu haqqında ümumi nəzəri fikirlərin olmaması ilə əlaqədardır.

Bununla əlaqədar olaraq, hazırki işdə izopren kauçukun (SKI-3) yüksək molekullu birləşmələrlə (BNK, PVX, PVA,PVS) modifikasiyası üçün elmi-texniki əsasların işlənib hazırlanması və modifikatorlardan istifadənin səmərəliliyinin artırılması yollarının axtarışı üzrə aparılan tədqiqatlar vacib problemlərdən biridir.

Xaricdə aparılmış fundamental tədqiqatlara həsr olunmuş tədqiqat işləri, kiçikmolekullu birləşmələr əsasında modifikatorların yaradılmasına və istehsalata tətbiqinə imkan vermişdir. Bununla belə, elastomer sənayesi modifikatorların kəskin çatışmazlığını yaşayır və çeşidin genişlənməsi səbəbindən onlar aktualdır. Eyni zamanda, bu modifikatorların təsir dairəsi məhduddur və əsasən elastomer sistemlərdə rabitənin möhkəmliyini artırmağa yönəldilmişdir. Elastomer məmulatların iş resursu müddətinin artırılması izopren kauçuk əsasında elastomer materialların geniş spektrli xassələrini, xüsusən aşınma müqavimətini, yorğunluğa dözümlülüyü, yırtılmaya qarşı müqavimətini, modifikatorlar olmadan yaxşılaşdırmaq mümkün deyil. Bu problemin həlli elastomer qarışıqların resepturaların yeniləşməyinə, komponentlərin sayını azaltmağa və onların doza prosesini asanlaşdırmağa imkan verir.

İzopren kauçuku (SKI-3) üçün modifikasiya agentləri məqsədə uygun şəkildə yaradılması işində əhəmiyyətli bir çətinlik, onların fəaliyyət qanunları ilə ümumi nəzəri təsvirlərin olmaması ilə əlaqədardır.

Bununla əlaqədar olaraq, aktiv kiçikmolekullu məhsulların iştirakı ilə izopren kauçuklarının yüksəkmolekullu birləşmələrlə (BNK,PVX, PVA, PVS) modifikasiyası üçün, elmi-texniki əsaslarla işlənib hazırlanmasına və modifikatorların istifadəsinin effektivkiyinin artırılması yollarının axtarışına həsr olunmuş tədqiqat işi vacib məsələlərdən biridir.

İşin məqsədi :izopren kauçuklarının (SKI-3) heksaxloroparaksilol (HXPK) və bis-2-dimetilbenzil peroksid PDK (peroksidikumil) vulkanlaşdırıcı tikici agentlərlə, qarışıqlarının quruluş xassələrinin modifikasiya əsasında formalaşma xüsusiyyətlərinin öyrənilməsi və kompozisiyaların texnoloji və fiziki-mexaniki xassələrini təkmilləşdirmək məqsədi ilə, onların aktiv vulkanlaşdırıcı təsirə malik, yüksək molekullu birləşmələrlə modifikasiyasının effektivliyinin qiymətləndirilməsidir.

Qarşıya qoyulan məqsədə çatmaq üçün aşağıdakı məsələlər həll edilmişdir:

1. Butadien – nitril kauçuku (SKI-40), polivinilxlorid (PVX) və polivinil asetat (PVA) tərkibli yüksək molekullu birləşmələrin, müxtəlif kütlə hissələrinin izopren sopolimerinin texnoloji və fiziki-kimyəvi xassələrinə təsirini öyrənmək;
2. Yüksək molekullu birləşmələrin miqdarından asılı olaraq, modifikasiya olunmuş vulkanizatların reoloji xassələrini öyrənmək;
3. Qızdırılma müddətindən asılı olaraq tikici agent HXPK və BNK, PVX və PVA birgəpolimerlərinin, həmçinin gel fraksiyasının iştirakı ilə vulkanizatların fəza zəncir torunun quruluş parametrini tədqiq etmək;
4. Elastomer materialların xassələrinin hərtərəfli qiymətləndirilməsini həyata keçirmək və əldə edilmiş məlumatlar əsasında istiliyədavamlı örtük materiallar almaq və praktikda istifadə məqsədi ilə kükürd və peroksidli vulkanizatların iştirakı ilə texnoloji prosesin işləyib hazırlamaq.

**TƏDQIQAT METODU**

Bu işdə yüksək molekullu birləşmələr - sintetik izopren (SKI-3)və butadien-nitril kauçuku (SKN-40), polivinilxlorid (PVX) və polivinil asetat (PVA) ,polivinil spirti (PVS) - aşağı molekullu kükürd, dikumil peroksid. (DP), sink oksidi (ZnO), heksaxloroparaksilol (HXPK), stearin, bitum və texniki karbon (doldurucu P324) seçilmişdir.

Aşağı molekullu birləşmələrin tozlarından elastik hissəciklərə, modifikasiya olunmuş vulkanizatların alınması şəraiti və üsulları dissertasiya işinin ikinci fəslində təsvir edilmişdir. Polimerlərin fəza quruluşları, vulkanlaşma rejimini və qızdırma vaxtını dəyişdirməklə, izopren kauçukunu BNK, PVX, və PVA ilə modifikasiya etməklə tənzimlənir.

İşdə kompleks fiziki-kimyəvi eksperimental üsullardan istifadə edilmişdir: İQ-Furye və EPR spektroskopiyası, fiziki-mexaniki, deformasiya ölçmələrini eyni zamanda DTA analiz üsulundan

istifadə etməklə modofikasiya olunmuş elastomer garışıglarının termiki parcalanması muəyyən edilmişdir. Modifikasiya olunmuş elatomer materiallarının istismar xassələrini muəyyən etmək ucun ,muxtəlif xarici GOST-lardan istifadə edilmişdir.

**Cədvəl1.BNK, PVX və PVA ilə qarışdırılmış izopren kauçukunun xassələri**

| Göstəricilər | Modifikatorun miqdarı, % | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | SKI-3 | SKI -3-SKN-40 | | | SKI -3-PVX | | | SKI -3- PVA | | |
| Kütlə faiz ilə qarışığı | 100 | 90<br>10 | 80<br>20 | 70<br>30 | 90<br>10 | 80<br>20 | 70<br>30 | 90<br>10 | 80<br>20 | 70<br>30 |
| Sərtlik, qs | 400 | 600 | 700 | 800 | 500 | 530 | 550 | 520 | 550 | 570 |
| Elastik bərpaqabiliyyəti, mm | 1,8 | 2,7 | 3,0 | 3,4 | 1,8 | 2,4 | 2,7 | 2,4 | 2,6 | 2,8 |
| Plastiklik, şərti vahid | 0,17 | 0,33 | 0,29 | 0,25 | 0,29 | 0,25 | 0,21 | 0,20 | 0,17 | 0,15 |

Təqdim olunmuş cədvəl 1-dən görünür ki, SKI-3-ün birgəpolimerlərlə kombinasiyasının davranışı fərqlidir. SKN-40 ehtiva edən qarışıqlar üçün sərtlik, plastiklik və elastik bərpanın artımı müşahidə olunur. SKI-3-PVA qarışıqlarının plastiklik dəyərləri ilə müqayisədə bu, SKI-3-ün BNK ilə daha güclü qarşılıqlı təsiri ilə əlaqələndirilə bilər. Birgəpolimerlərin miqdarının azalması plasto-elastik xassələrə əks təsir göstərir.




**Şəkil1.** Qarışığın özlülüyünün modifikatorun nisbətindən asılılığı
1-SKI-3-SKN-40; 2-SKI-3-PVX; 3-SKI-3-PVA

Qarışıqlar (SKI-3-PVX, SKI-3-PVA qarışıqları SKI-3-SKN-40-dan) fərqlənən zaman, onların sərtliyinin və elastik bərpasının SKI-3-SKN-40 ilə müqayisədə aşağı olduğunu görmək olar.

Qarışıqlarda PVX və PVA birgəpolimerinin miqdarı artdıqca, SKI-3-SKN-40 qarışığı ilə müqayisədə sərtlik və elastik bərpa kəskin şəkildə artır.

SKI-3 qarışıqlarında yüksək özlülük birgəpolimerlərin SKI-3 kauçuku ilə daha güclü qarşılıqlı təsiri ilə əlaqələndirilə bilər (Şəkil 1).Bu, birgəpolimer qarışığında daha yaxşı paylanmanı göstərir.

SKI-3 (SKI-3-SKN-40) əsaslı qarışıqlar özlülük baxımından PVX və PVA ilə qarışıqlardan üstündür. SKI-3-SKN-40, SKI-3-PVX, SKI-3-PVA birgəpolimerləri üçün Muniyə görə özlülük müvafiq olaraq 63, 52 və 45 təşkil edir.

Beləliklə, 10:20:30% nisbətində birgəpolimer (SKN-40, PVX, PVA) miqdarı elastomerin molekul kütləsinin nəzərəçarpacaq dərəcədə artımını təmin edir.

**Cədvəl 2.**150°C x 40´-də vulkanlaşmış birgəpolimer əsasında elastomer qarışıqlarda əsas komponentlər və onların miqdarı (kütl. əd.)

| **Komponentlər (kauçukun 100 kütl.h. düşən kütl.h.)** | **Rejim (150°Cx40 dəq)** | | |
|---|---|---|---|
| | 1 | 2 | 3 |
| SKI-3 - SKN-40 | 100 | - | - |
| SKI-3-PVX | - | 100 | - |
| SKI-3-PVA | - | - | 100 |
| Kükürd | 2,0 | 2,0 | 2,0 |
| ZnO | 5,0 | 5,0 | 5,0 |
| HXPK | 3,0 | 3,0 | 3,0 |
| Stearin | 2,0 | 2,0 | 2,0 |
| Bitum | 1,5 | 1,5 | 1,5 |
| Texnikikarbon P324 | 50 | 50 | 50 |

Temperaturun təsiri zamanı (Cədvəl 2) SKI-3 və BNK əsasında elastomer qarışıqların davranışının xüsusiyyətlərindən biri onların tikilməyə meylinin artmasıdır. İzopren nitril kauçuklarına əsaslanan elastomerlər qazma və neft dəzgahlarında istismar zamanı eyni vaxtda yüksək temperatura, təzyiqə və mexaniki gərginliyə məruz qalırlar.Eyni zamanda, bir sıra hallarda, xüsusən də BNK və ona əsaslanan məhsulların tikilmə ilə əlaqədar olaraq materialın istismar xassələrinin pisləşməsi qeyd olunur. Elastomer materiallar qızdırıldıqda, onun quruluşunu nəzərə alsaq müxtəlif amillərin və eyni zamanda elastomer materialın bərkliyi ilə əlaqədar olaraq destruktiv proseslər baş verir. Əksər hallarda polimerlərin destruksiyası makroradikalların rekombinasiyası ilə əlaqədar olaraq asan labil qrupların aradan qaldırılması ilə bağlıdır. İstənilən prosesin üstünlüyü polimerin quruluşu və temperaturla müəyyən edilir. SKI-3 birgəpolimerinin tikilmə dərəcəsinə dair məlumatlar ilə müqayisə göstərir ki, tərkibində triklorometil qruplarından başqa aktiv aromatlaşdırılmış aktivləşdirici nüvələr olan vulkanizatların parçalanma dərəcəsi nə qədər yüksək olarsa, xlor tərkibli birləşmələrin parçalanma temperaturu bir o qədər aşağı olur və tikilmə daha sürətli baş verir. Güman etmək olar ki, SKN-40-ın tikilməsi HXPK-nın parçalanma məhsulları ilə reaksiyalara kiçik dərəcədə bağlıdır.

**NƏTICƏ**

BNK, PVX , PVA və PVS yüksək molekullu modifikatorların müxtəlif kütlə hissələrinin izopren kauçuku (SKI-3) əsasinda birgəpolimerlərin texnoloji və fiziki-mexaniki xassələrinə təsiri tədqiq edilmişdir.

1. İşin elmi əhəmiyyəti ondan ibarətdir ki, burada müxtəlif növ vulkanlaşma rabitələrinin, müəyyən kombinasiyasının optimal xassələr kompleksinə təsiri ilə bağlı mövqenin yeni sistemlərdə daha da təsdiqi əldə edilmişdir. Tədqiq olunan yüksək molekullu modifikatorların quruluşu ilə onların effektiv təsiri arasında qarşılıqlı əlaqə qurulmuşdur.

2. Müəyyən edilmişdir ki, mexaniki plastikasiya prosesi zamanı, SKI-3 birgəpolimerlərinin zol fraksiyasının daxili özlülüyünün azalması əsas zəncirin destruksiyasından xəbər verir.

3. Furye spektroskopiyası və analoqların EPR məlumatlarına əsasən, C-S-C və C-C tipli quruluşun formalaşması ilə əlaqədar SKI-3-ün BNK birgəpolimerləri (SKN40) ilə ilkin quruluş mexanizmi verilmişdir.

4. Göstərilmişdir ki, molekul kütləsinin artımı, zəncir quruluşunun dəyişməsi, çoxsaylı qoşa rabitələrin və digər aktiv mərkəzlərin makromolekullarda mövcudluğu, BNK, PVX, PVA və PVS izopren birgəpolimerində kimyəvi çevrilmələrini təmin edir.

5. SKI-3 birgəpolimerləri əsasında vulkanlaşmaların fəza zəncir torlarının parametri müəyyən edilmişdir.Müəyyən edilmişdir ki,SKI-3-SKI-40 (70:30) birgəpolimerlərinin vulkanizatları üçün zəncir torunun sıxlığı və tikilmə dərəcəsi daha yüksəkdir.

Tədqiqat işi ilə bağlı əsas müddəalar:

1. SKI-3 izopren kauçukun (70:30; 80:20) nisbətlərində BNK, PVX və PVA ilə birləşməsi, polyar qrupların təsiri altında polimerdə aktiv mərkəzlər meydana gəlir, tikilmə çıxımlarının, molekul kütləsinin və effektiv kimyəvi cərgəli əlaqələrin artmasına səbəb olur.

2. Göstərilmişdir ki, BNK, PVX və PVA-nın miqdarının artımı və polyar qrupların vulkanlaşma prosesi zamanı kimyəvi reaksiya prosesinə təsiri nəticəsində, polimer makromolekulasında aktiv zəncir torunun çıxım artımına səbəb olur.

3. Polimer molekulunda tikilmiş molekulların sayının azalmasına səbəb, vulkanlaşma prosesinin aparılması zamanı temperatur vaxtının yüksək olması nəticəsində, polimer zəncirinin destruksiyası ilə əlaqələndirilir.

4. Vulkanlaşmanın temperatur-zaman rejimindən, tikilmə şərtlərindən asılı olaraq modifikasiya olunmuş nümunələrin (SKI-3-SKI-40, SKI-3-PVX SKI-3-PVA) möhkəmlik, plasto-elastik xassələrindəki dəyişiklik polimer molekulu və sink oksidinin fazaları arasında qarşılıqlı əlaqənin dəyişməsi ilə əlaqədardır.

5. Yüksək temperaturda maye aqressiv mühitlərdə fiziki və mexaniki xassələrin artması C-C kimyəvi əlaqələrin quruluşunun formalaşması və polimerin kompleksini əmələ gətirmə qabiliyyətinin artması ilə əlaqədardırir ki, bu da adgeziyanın (yapışmanın) artmasına səbəb olur.

İşin praktiki əhəmiyyəti:

1. Butadien-nitril, polivinilxlorid və polivinil asetata əsaslanan modifikatorların fiziki-kimyəvi xassələrinin və izopren kauçukun (SKI-3) quruluşlarının qarışıqların və vulkanizatların quruluş xassələrinə təsirinin qanunauyğunluğunun müəyyən edilməsi, birgəpolimerin müxtəlif nisbətlərində modifikasiyaedici polimer sistemlərin məqsədyönlü seçilməsinə imkan verir.

2. BNK, PVX və PVA birgəpolimerlərlə modifikasiya hesabına rezin məmulatlarının istehsalında geniş istifadə olunan izopren birgəpolimerləri və vulkanlaşdırıcı agentlər heksaxloroparaksilol, sink oksid, doldurucu - texniki karbonun (P324) əsasında, qarışıqların və vulkanizatların xassələrinin yaxşılaşdırılmasının mümkünlüyü göstərilmişdir. Alınan nəticələrə əsasən, adgeziyaya və istiyə davamlı elastomer materialların istehsalı üçün müxtəlif avadanlıqlar üçün örtüklərin və sıxlaşdırıcı materialların hazırlanmasında modifikasiya olunmuş kompozit materiallarından istifadə etmək olar.

**ƏDƏBIYYAT SIYAHISI**

1. Аверко-Антонович,.И.Ю., Бутадиен-винилхлоридные латексы и продукты на их основе. тез.докл. Междунар.конф. по каучуку и резине, Москва: 1 -4 июля, 2004, с.38-45

2. Аверко-Антонович.Ю.О., Влияние гидрирования на термические свойства диеновых эластомеров // Производство и использование эластомеров. 2000.- № 5,- 37-40.

3. Акутин.М.С.,Мелик-Касумов.А.В.,Торнер.Р.В.,Котрелев.. Модифицированные поливинилхлорида на пластографе Брабендера.-Пласт. Массы,1998, №12, с.42-44.

4. Ахмедов.Г.Г., Модификация каучуков эмульсионной полимеризации // Проблемы развития науки и производства: тез. докл. Всеросс. наун.-тех. конф. «Каучук 89», Воронеж, 18-22 сентября, 1989, -с.53-55

5. Бабаев.А.И.Модификация сополимера изобутилен-изопрен кислородсодержащими мономери. Дисс. на соиск. уч. степени. канд. хим. наук. МХТИ им.Д.И.Менделеева, Москва,1996.

# VANADIUMUN AMMONIUM METAVANADAT ŞƏKLINDƏ ÇÖKMƏSIPROSESININ KINETIKASININ TƏDQIQI

**ARZU OSMANOVA**

M.Nağıyev adına Kataliz və Qeyri-üzvi Kimya İnstitutu
Qeyri-üzvi Kimya
*arzuosmanova235@gmail.com*
BAKI,AZƏRBAYCAN

**XÜLASƏ**

Vanadiumun çökmə metodu ilə ammonium metavanadat və polivanadat şəklində alınması araşdırılmışdır.Çökmənin şəraiti $C_{NaVO3нач}$ = 6.95 q/l və ya $V_2O_5$ = 5.18 q/l, pH = 8, vaxt τ = 2 saat, t = $20^0$C olduqda 12-14% $(NH_4)_2SO_4$ qatılığında ammonium metavanadatın 91% çökməsinə nail olunur. Temperaturun ($20^0$C, $30^0$C və $40^0$C) qiymətlərində vanadiumun ammonium sulfatla çökməsi prosesi tədqiq olunmuşdur.Otaq temperaturuna yaxın temperaturda ($20^0$C) 210 dəq. (3.5 saat) vanadium 91% $NH_4VO_3$ şəklində çökür. Şəraiti eyni saxlamaqla temperaturun qaldırılması ilə $40^0$C temperaturda çökmə azalaraq 70% təşkil edir. Müxtəlif temperaturlarda aparılan təcrübələrin nəticələrinə əsasən prosesin kinetikası hesablanmışdır.$E_{ak}$qiyməti üçün 1.362kc\mol (5.62kk/mol)hesablanmışdır.Bu isə prosesin diffuziyon oblastda getdiyini göstərir.

Açar sözlər**: vanadium, ammonium metavanadat,ammonium polivanadat.**

## GIRIŞ

Vanadium sərtliyi, dartilma qabiliyyəti, yüksək temperaturda gərginliyi və dözümlülüyü kimi fiziki xassələrinə görə əlvan və qara metallurgiyada istifadə olunur. Vanadium məhlullardan əsasən az qatılıqda vanadium olduqda adsorbsiya,ekstraksiya,qatı məhlullardan isə əsasən çökmə üsulu ilə ayrılır. Vanadiumu pirometallurgiya və hidrometallurgiya üsulları ilə istehsal etmək mümkündür. Hidrometallurgiya əsasən vanadiumun yanaşı çıxarılma, konsentarlardan ayrılma zaman istifadə olunan üsul hesab olunur. Müəlliflər [1] öz tədqiqatlarında alüminium istehsalında yuyulma məhlulundan vanadiumun çıxarılması üsullarını ümumiləşdirmiş və belə nəticəyə gəlmişlər ki, ion mübadiləsi və ekstraksiya üsullarından vanadiumun konsentrasiyası daha az olan məhlullardan ayrılması üçün istifadə etmək olar, vanadiumun daha yüksək konsentrasiyası olan hallarda isə kimyəvi çökmə aparılması əlverişlidir. Ammoniu duzları ilə təsir edilməklə natriumvanadatlı məhluldan vanadiumun ammonium duzları şəklində çökdürülməsinin optimal şəraiti araşdırılmışdır. Lakin, bu mövzu geniş tədqiq olunmamışdır.

Vanadiumun ammoniuim duzları ilə çökdürülməsi zamanı onun şlaklardan və konsentratlardan son mərhələdə ammonium vanadat şəklində çökdürülməsi aparılır. Daha təmiz şəkildə, tam olaraq çökmə üçün isə onun polivanadat şəklində çökməsini apararaq (pH=2),sonradan metavanadat formaya çevrilməsi aparılır (pH=8). Ammonium metavanadatın $550^0$C temperaturda parçalanması zamanı isə təmiz $V_2O_5$ alınması mümükündür.

$2NH_4VO_3 = V_2O_5 + 2\ NH_3 + H_2O$

Ammonium duzları ilə çökdürmə yüksək effektivliyə malikdir və məhsulun yüksək təmizliyinə səbəb olur [2].

Ətraf mühitin mühafizəsi baxımından vanadaiumun çökmə texnologiyasına məhdudiyyətlər tətbiq olunmaqdadır, məhsulun aşağı təmizliyi, ekoloji problemlər, aşağı tətbiq olunma diapazonuna malik olmasına görə vanadium istehsal sahəsi daralır.

Ammonium duzları ilə ($NH_4Cl$,$(NH_4)_2SO_4$ ) çökmə zamanı müəyyən olunmuşdur ki, $NH_4^+$ ionlarının polivanadat ionları ilə birləşmə qabiliyyəti $Na^+$ ionlarına nisbətən daha güclüdür. [3]. Uyğun olaraq polivanadat ionlarının kristalları çöküntüyə yığılacaqlar, kationların müxtəlifliyinə əsasən daha stabil strukturda olanlarda çökmə daha əlverişli olur.Na ionlarını $NH_4^+$ ionları əvəz edərək çökmə baş verir.

Tədqiqat işində vanadiumun ammonium metavanadat formasında çökdürülməsi vanadaiumun 6.95q/l qatılığında aparılmışdır. Optimal şəraitin tapılması üçün müxtəlif temperaturlarda təcrübələr aparılmışdır.Metavanadat ammonium və polivanadat ammonium formalar arasında keçid fərqləndirlimişdir.

**TƏDQIQAT METODU**

Vanadiumun konsentrasiyası fotokolorimetrik metodla təyin olunur.KFK-2 kolorimetri ilə ölçmələr aparılır. Qarışdırılma isə maqnit qarışdırıcıda aparılır. Hotplate Magnetic Stirrer BS-4H markalı qarışdırıcıda qarışdırılma aparılır.Məhlulun pH-ı HI2211 (Hanna İnstruments, ABŞ) markalı pH metrlə tənzimlənir.

Təcrübələrin yerinə yetirilməsi zamanı Zəylik alunitindən istifadə olunmuşdur. Alunit filizinin tərkibi əsasən: alunit [$KAl_3(SO_4)_2(OH)_6$],dikkit [$Al_2O_3 \cdot 2SiO_2 \cdot 2H_2O$], hematit [ $Fe_2O_3$] və kvars [$SiO_2$] minerallarından ibarətdir.

Alunit mineralının qələvi ilə emalı zamanı alınan alüminat məhlulunun silisiumsuzlaşdırılması, dekompozisiyası və buxarlandırılaraq sulfatların kristallaşdırılaraq ayrılmasından, sonra alınan məhlulda vanadium $NaVO_3$ və $KVO_3$ şəklində və 6.95q/l qatılığında olur. Bizim tədqiqatlarımızda vanadiumun çökdürülməsi ammonium sulfat duzları ilə aparılmışdır. Müəyyən olunmuşdur ki,pH<8 qiymətində vanadium metavanadat şəklində çökür.Çökmənin optimal şəraiti öyrənilərək müəyyən olunmuşdur ki, $V_2O_5$ – 6.95 q/l; mol nisbəti $(NH_4)_2SO_4$: $V_2O_5$=2 :1 olduqda təcrübələr aparılmışdır. 20 $^0$C,30 $^0$C,40 $^0$C temperaturlarda vanadiumun çökmə faizinin zamandan asılılığı öyrənilmişdir.Müəyyən olunmuşdur ki, təcrübə zamanı 1 saat ərzində vanadium 40 $^0$C temperaturda 35%,30 $^0$Ctemperaturda 55%,20$^0$C temperaturda isə 70% çökmüşdür. Maksimum çökmə isə otaq temperaturuna yaxın (20$^0$C) 210 dəqiqə (3.5 saat) ərzində 91% vanadiumun $NH_4VO_3$ şəklində çökməsi ilə müşahidə olunur.




**Şəkil 1. Qarışma müddətinin vanadiumun çökmə faizinə təsiri.**

Təcrübi nəticələr əsasından prosesin sürətini I dərəcəli kinetik tənliklə (B.V.Erofeyev) hesablamaq mümkündür :

$\alpha = 1 - e^{-k^{\tau n}}$ (5.2.4.1.)

Burada α –zamandan asılı olaraq vanadiumun çökən kütlə payı, k-mütənasiblik əmsalı, τ – təcrübənin müddəti, n- kinetik parametrdir.

$NaVO_3$ pulpasında qalan vanadiumun miqdarı (1-α) ilə, $NH_4VO_3$ şəklində çökən vanadiumun miqdarı isə α ilə ifadə olunur. Təcrübələr zamanı müəyyən olunmuşdur ki, 1-α qiymətinin zamandan asılılığı eksponensial olaraq dəyişir.




**Şəkil 2. Zamandan asılı olaraq vaandiumun pulpadakı miqdarının dəyişməsi.**

1-α=$e^{-k^{\tau n}}$ [5.2.4.2.]

1-α vanadiumun pulpadakı miqdarıdır.

5.2.4.2. tənliyinin tətbiqinin mümkünlüyünü yoxlamaq üçün onu loqarifmləyirik.

(5.2.4.1.) düsturunu 2 dəfə loqarifmləsək onun lgτ –dan asılılığı alınır.

lg(lg(1-α)-lgτ asılılığından aydınlaşır ki, $25^0$ C,$35^0$C,$40^0$C temperaturlarda asılılıq düz xətt verir.

lg[lg(1-α)] = nlgτ+lgk [5.2.4.3]




**Şəkil 3. Müxtəlif temperaturdakı lg(lg(1-α) qiymətlərinin lgτ –dan asılılığı.**

lg(lg(1-α)-lgτ asılılığından alınan düz xəttin bucağının tangensinə görə reaksiyanın tərtibi - n (kinetik parametr), lgτ=0 qiymətində əyrinin ordinat oxunu kəsmə nöqəsinə əsasən lgk təyin edilir.

Reaksiyanın surət sabitini Q.V.Sakoviç tənliyi əsasında

K= nk$\frac{1}{n}$ hesablayırlar.

Sonuncunu loqarifmləsək :

lgK=lgn+$\frac{lgk}{n}$ tənliyi alınar.

**Cədvəl 1.***Temperaturdan asılı olaraq reaksiyanın həqiqi sürət sabitinin hesablanması*

| T | T | $\frac{1}{T}\cdot 10^3$ | Meyl bucağı α | tgα=n | lg n | lg k | $\lg\frac{k}{n}$ |
|---|---|---|---|---|---|---|---|
| 25 | 298 | 3.35 | 25 | 0.466 | -0.33 | 0.55 | -1.667 |
| 30 | 303 | 3.3 | 28 | 0.532 | -0.274 | 0.71 | -2.591 |
| 40 | 313 | 3.15 | 30 | 0.577 | -0.243 | 0.95 | -3.909 |

Hesablamalar əsasında müəyyən olunmuşdur ki, n-in qiyməti 1-dən kiçikdir. n-in 1 dən kiçik olması prosesin diffuziyon oblastda getdiyini, 1-dən böyük qiymət olması isə prosesin kinetik oblastda getdiyini göstərir.

Bu verilənlər əsasında reaksiyanın sürət sabitinin qiyməti qrafiki formada hesablanır. Reaksiyanın surət sabitinin temperaturdan asılılıq qrafikindən alınan düz xəttin meyl bucağının tangensinə əsasən şəkil (5.2.10.) aktivləşmə enerjisinin qiyməti hesablanır.




**Şəkil 4. Reaksiyanın surət sabitinin temperaturun tərs qiymətindən asılılığı.**

Aktivləşmə enerjisinin qiymətini hesablamaq üçün bu düsturdan istifadə edilmişdir.

$\text{tg}\alpha=\frac{E_{ak}}{2.303R\varepsilon}$

Buradan alınır ki,

$E_{ak}$= 2.303Rεtgα.

ε ordinat oxundakı miqyasında absis oxundakı miqyasına olan nisbət olub, düzəliş sabiti adlanır.

$E_{ak}$= 2.303·1.987·0.839·0.355·$10^3$=1362 C/mol=1.362kc\mol

$E_{ak}$=2,303·8.31·0.839·0.35·$10^3$=5619.85 kal/mol=5.62kk/mol.

Aktivləşmə enrjisinin qiymətinin kiçik olmasına əsasən prosesin diffuzion oblastda getdiyi müəyyən olunmuşdur.

Diffuzion oblastda gedən reaksilarda reaksiya surətinə təsir edən əsas faktor qarışdırılma surətidir.

**NƏTICƏ**

Ammonium metavanadat şəklində vanadiumun çökməsi şəraiti tədqiq olunaraq müəyyən olunmuşdur ki, başlanğıc məhlulda $NaVO_3$ miqdarı 6.96 q/l, pH = 8, vaxt τ = 2 saat olduqda temperaturun ($20^0$C, $30^0$C və $40^0$C) qiymətlərində vanadiumun ammonium sulfatla çökməsi zamanı ($20^0$C) 210 dəq. (3.5 saat) zaman müddətində vanadiumun 91% $NH_4VO_3$ şəklində çökməsi baş verir. Prosesin kinetikası araşdırılaraq n və $E_{ak}$ qiymətləri hesablanmışdır. n-nin qiymətinin 1 dən kiçik olması və $E_{ak}$=1.362kC\mol qiyməti prosesin diffuziyon oblastda getdiyini sübut edir. Ammonium vanadatın çökməsinin qarışdırlma surətindən asılılığı araşdırılmışdır.

**ƏDƏBIYYAT**

6. M.Nekovar, Schrötterova. 2000. Extraction of V(V), Mo(VI) and W (VI) polunuclear species by prmene JMT // Chemical Enginering Journal. Vol 79. N 3. P. 229-233.

7. . Zhang Y.M. 2014. Extracting Vanadium from Stone Coal. 1st ed. Science Press; Beijing, China:. pp. 185–197.

8. Xiong P., Zhang Y., Bao S., Huang J.2018. Precipitation of vanadium using ammonium salt in alkaline and acidic media and the effect of sodium and phosphorus. Hydrometallurgy. 180,113–120.

# ETİLENDİAMİNTETRASİRKƏ TURŞUSUNUN İZOBUTİLAMİNLƏ 1:3 MOL NİSBƏTİNDƏ QARŞILIQLI TƏSİRİNDƏN ALINMIŞ BİRLƏŞMƏLƏRİN İNHİBİTOR-BAKTERİSİD XASSƏLƏRİNİN TƏDQİQİ

**İsmayıl İsmayılov, Rəhimə Fərhadova, Teyyub İsmayılov, Rüfanə Əlizadə, Tofiq Əliyev**
Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi akad.Y.H.Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutu
*rehime.ferhadova@mail.ru*
AZƏRBAYCAN, BAKI

**XÜLASƏ:**

EDTST-nun İBA-lə 1:3 mol nisbətində amidləri sintez edilmiş, onların Na və K duzları alınmış, bu duzların destillə olunmuş suda 10%-li məhlulları hazırlanmış onların fiziki-kimyəvi göstəriciləri təyin edilmişdir. Sintez edilmiş bu duzların sulfatreduksiyaedici bakteriyaların həyat fəaliyyətinə təsir edən bakterisid kimi tədqiqatları aparılmışdır. Təcrübələrdə sulfatreduksiyaedici bakteriyaların "Desulfovibrio desulforikans" növündən və 1143 ştamından istifadə edilmişdir. Müəyyən edilmişdir ki, bu duzlar 100-300 mq/l qatılıqlarda sulfatreduksiyaedici bakteriyaların həyat fəaliyyətini tam dayandırır və bakterisid kimi yüksək effektivlik (92-100%) göstərirlər.

**AÇAR SÖZLƏR:**Etilendiamintetrasirkə turşusu (EDTST), izobutilamin (İBA), bakterisid-inhibitor

**KEYWORDS:** Ethylenediaminetetraacetic acid (EDTST), isobutylamine (IBA), bactericide-inhibitor

## GİRİŞ:

Neft sənayesində avadanlıqların korroziyası nəticəsində dünya iqtisadiyyatına dəyən ziyan ildə milyard dollarla ölçülür. Yeni neft yataqlarının tapılması və istismara verilməsilə əlaqədar olaraq avadanlıqların istismar şəraiti də dəyişir. Nəticədə sənayedə tətbiq olunan inhibitorların mühafizə effektləri azalır, ya da onlar ümumiyyətlə təsir göstərmirlər.

Məlumdur ki, $H_2S$ korroziyası digər korroziya növlərinə nisbətən neft sənayesində daha çox baş verir və $H_2S$-in quyulardan çıxarılan məhsullarda yaranmasının əsas mənbəyi sulfatreduksiyaedici bakteriyalardır (SRB) [1, 2]. Bu tip bakteriyalara əsasən separatorlarda, tutumlarda, neft boru kəmərlərində, xammal çənlərində rast gəlmək olar. Aydındır ki, biokorroziya və kimyəvi korroziya prosesləri kompleks şəkildə baş verir. Bu səbəbdən həm kimyəvi korroziyanın qarşısını alan, həm də mikroorqanizmlərin məhvinə təsir göstərən maddələrin öyrənilməsi əsas və önəmli məsələlərdən birinə çevirilib [3, 5]. Bu səbəbdən $H_2S$ və $CO_2$ korroziyasından mühafizə edən yeni inhibitorların yaradılması neft sənayesi üçün aktual bir problem olaraq qalmaqdadır. Neft-mədən avadanlıqlarında

korroziyadan mühafizə üsullarının təkmilləşdirilməsi aktuallıq kəsb edir. Mədən avadanlıqlarının korroziyadan səmərəli mühafizə üsullarından biri inhibitorların istifadəsidir.

**TƏDQİQAT METODU:**

Bunları nəzərə alaraq tərəfimizdən EDTST izobutilaminlə (İBA) 1:3 mol nisbətində amidi alınmış, sintez olunmuş amidin İQ spektri çəkilib quruluşu araşdırılmış, fiziki-kimyəvi xassələri öyrənilmiş, Na və K duzları alınmış, onların məhlulları hazırlanmış, duzların SRB-nin həyat fəaliyyətinə təsiri öyrənilmişdir.

EDTST-un İBA-lə 1:3 mol nisbətində amidini almaq üçün 7,5 qr İBA götürülüb stəkana tökülüb və üzərinə qarışdıra-qarışdıra 10 qr EDTST əlavə edilib. Reaksiya istiliyin ayrılması ilə gedir. Kompleks birləşmə alındıqdan sonra yenidən stəkanda olan məhsul 140°C-ə qədər qızdırılır və bu temperaturda 3 saat qarışdırılır. Reaksiyanın gedişi aşağıdakı kimidir:




Sintez olunmuş amidin Na duzunu almaq üçün 8,5 qr amid götürüb üzərinə 2,48 qr NaOH-ın 30%-li məhlulu əlavə edilmiş, alınan maddənin üzərinə destillə suyu əlavə edilərək 10%-li məhlulu hazırlanmışdır.

K duzunu almaq üçün sintez olunmuş amiddən 6 qr götürülmüş və üzərinə 4,8 qr 20%-li KOH əlavə edilmişdir. Alınmış K duzunun üzərinə destillə olunmuş su əlavə edilərək 12%-li məhlul alınmışdır.

Sintez olunmuş duzların SRB-nin həyat fəaliyyətinə təsiri aşağıdakı qaydada öyrənilmişdir.

Təcrübələrdə SRB-nin "Desulfovibrio desulfurikans" növündən və 1143 ştamından istifadə olunmuşdur.

SRB-lər sulfatları hidrogen sulfidə kimi reduksiya edən obliqant anaerob bakteriyalardır. SRB-lərin inkişafı üçün daha münasib olan qidalı mühit Postqeyt B mühitidir. Mühitin pH-ı 7-7,5 arasında olmalıdır.

SRB-nin inkişaf etməsi üçün Postqeyt mühitə aşağıda qeyd olunan əlavələr qatılır. Əlavələr bunlardır:

- dəmir sulfat $FeSO_4 \cdot 4H_2O$ (2%-li xlorid turşusunda 5%-li məhlulu)- 0.5-2 ml,
- natrium bikarbonat $NaHCO_3$ (5%-li suda məhlul)- 1 ml,
- $Na_2CO_3$-ın 1%-li məhlulunda hazırlanmış kristallık natrium sulfidin ($Na_2S \cdot 9H_2O$) məhlulu – 1 ml.

Təcrübə 10 ml-lik əvvəlcədən sterilizasiya olunmuş sınaq şüşələrində məlum üsulla aparılmışdır. İnhibitorsuz mühitdə bakteriyaların sayın təyin etmək məqsədilə, bakteriyalar əvvəlcə durulaşdırma aparılaraq əkilir və inkubasiya müddəti 14 sutka olmaqla 30-32°C temperaturda termostatda saxlanılmış və təcrübənin sonunda müəyyən olunmuşdur ki, nəzarət üçün götürülmüş inhibitorsuz mühitdə bakteriyaların sayı $n=10^8$-dir. Daha sonra mühitə 100, 200 və 300 mq/l qatılıqlarda sintez olunmuş maddələr əlavə olunaraq yenidən 14 sutka olmaqla 30-32°C temperaturda termostatda saxlanılmışdır və təcrübənin ilkin 48-ci saatında sintez olunmuş maddənin bakteriyaların inkişafına effektiv təsir etməsi müşahidə olunmuşdur.

Təcrübənin sonunda tədqiq olunan nümunələr yodometrik üsulla titrlənmiş və alınan $H_2S$-in miqdarına əsasən onların bakterisid effekti hesablanmışdır. Titrlənmə zamanı fiksə olunmuş yod məhlulundan və fiksə olunmuş natriumhiposulfitdən istəfadə olunmuşdur. $H_2S$-in miqdarı aşağıda düstura əsasən hesablanır:

$$\text{X mq/l } H_2S = \frac{N(J)xV(J) - N(Na_2S_2O_3)xV(Na_2S_2O_3)}{VH_2O}\ x\ 17000 \quad (1)$$

N(J)= 0.1 n

V(J)=10 ml

N ($Na_2S_2O_3$)= 0.1 n

V ($Na_2S_2O_3$)= 7 ml

V ($H_2O$) = 20 ml

17000-0.1 n hiposulfidin 1000 ml-də həll olmasını göstərir.

Tapılan $H_2S$-in miqdarına əsasən inhibitorun bakterisid effekti aşağıdakı düstura əsasən hesablanır.

$$Z = \frac{(C_0 - C_{inh})}{C_0} \cdot 100\% \quad (2)$$

$C_0$-nəzarət üçün götürülmüş mühitdə hidrogen sulfidin miqdarı, mq/l;

$C_{inh}$- hidrogen sulfidinin reagentli mühitdə əmələ gələn miqdarı, mq/l;

Sintez olunmuş maddələrin bakterisid effekti hesablanmış və sənaye miqyasında istifadə olunan (ИНКОР ГАЗ-11 və ТНТ ИНКОР ГАЗ-28 ТД) inhibitor bakterisidlərlə müqayisə edilmişdir. Alınmış nəticələr cədvəldə göstərilmişdir.

***Cədvəl: EDTST-un İBA-lə müxtəlif mol nisbətlərində sintez olunmuş maddələrin qatılıqdan asılı olaraq bakterisid effektinin nəticələri***

| **Maddələrin adları** | **Maddələrin qatılığı, C mq/l** | **Bakteriyaların sayı (hüceyrə sayı/ml)** | **$H_2S$ miqdarı mq/l** | **Bakterisid effekti, Z-%** |
|---|---|---|---|---|
| **1** | **2** | **3** | **4** | **5** |
| 1:3 mol nisbətlərində sintez olunmuş amidin Na duzunun 10%-li məhlulu | 100 | $10^1$ | 25 | 93,10 |
| | 200 | - | - | 100 |
| | 300 | - | - | 100 |
| 1:3 mol nisbətlərində sintez olunmuş amidin K duzunun 10%-li məhlulu | 100 | $10^1$ | 21,1 | 94,4 |
| | 200 | - | - | 100 |
| | 300 | - | - | 100 |
| ИНКОР ГАЗ-11 ТНТ | 250 | $10^7$ | 276 | 35 |
| | 500 | $10^6$ | 250 | 41 |
| | 1000 | $10^3$ | 119 | 72 |
| ИНКОР ГАЗ-28 ТД | 250 | $10^7$ | 306 | 28 |
| | 500 | $10^6$ | 260 | 38 |
| | 1000 | $10^3$ | 127 | 70 |
| Nəzarət-I SRB-siz mühitdə $H_2S$-in miqdarı | 24 mq/l | | | |
| Nəzarət-II SRB-li mühitdə $H_2S$-in miqdarı | 375 mq/l | | | |
| Nəzarət-III qidalı mühitdə bakteriyaların sayı | $10^8$ hüceyrə sayı/ml | | | |

Yoxlama I və yoxlama II nəzarət məqsədi ilə götürülmüş bakteriyasız və bakteriyalı mühitdə $H_2S$-in miqdarın yoxlama III isə nəzarət məqsədi ilə götürülmüş mühitdə bakteriyaların hüceyrə sayın göstərir (yoxlama 1 SRB-siz mühitdə $H_2S$-in miqdarı 34 mq/l, yoxlama II SRB-li mühitdə $H_2S$-in miqdarı 425 mq/l, yoxlama III bakteriyaların hüceyrə sayı $n_b=10^8$)

**NƏTİCƏ:**

Aparılmış tədqiqatlar nəticəsində müəyyən olunmuşdur ki, sintez olunmuş amidlərin Na və K duzları müqayisə məqsədi ilə götürülmüş xarici inhibitorlardan fərqli olaraq daha aşağı qatılıqlarda sulfatreduksiyaedici bakteriyaların həyat fəaliyyətini tam olaraq dayandırır.

Cədvəldən göründüyü kimi sintez edilmiş maddələr 300 mq/l $H_2S$-li mühitlərdə 100% bakterisid, xarici reagentlər isə 1000 mq/l $H_2S$-li mühitdə 70-72% biosid təsir göstərir.

**ƏDƏBİYYAT SİYAHISI:**

1. Quraichi M.A., Jamal D.( 2000). Fatty Acid Triazoles Novel Corrosion Inhibitors for Oil Well Steel (N-80) and Mild Steel. JAOCS, 77(10), 1107-1113.

2. Xometl O.O., Likhanova N.V., Dominguez-Aguilar M.A.(2008). Synthesis and corrosion inhibitors of amino acids alkylamides for mild steel in acidic environment. Materials Chemistry and Physics, 110, 344-351.

3. Гафаров Н.А., Гончаров А.А., Кушнаренко В.М. (1998). Коррозия и защита оборудования сероводородсодержащих нефтегазовых месторождений Москва: ОАО, Изд.Недра, 437.

4. Исаев Н.И. (1997). Теория коррозионных процессов Москва: Металиргия, 368.

5. Аббасов В.М., Мамедбейли Э.Г., Агамалиева Д.В. (2017). Исследование бактерицидных свойств производных имидазолинов синтетических нефтяных кислот. Нефтепереработка и нефтехимия, 8, 15-18.

# BİOLOGİYA

## AZƏRBAYCANDA BECƏRİLƏN ZOĞAL BİTKİSİNİN GENOM MÜXTƏLİFLİYİNİN TƏDQİQİ

**Hüseynova N.T[1]., Əsədova B.Q,[2]**
[1]Bakı Dövlət Universiteti
[2]Azərbaycan Dövlət Pedaqoji Universiteti
biolog-bdu@rambler.ru[1]
basti.mirzoeva1984@gmail.com [2]
Azərbaycan, Bakı

**Xülasə**

Zoğal (Cornus L.) Zoğalçiçəklilər dəstəsinin Zoğalkimilər fəsiləsinə aid bitki cinsidir. Meşə ərazilərində inkişaf edən eyni yaşda olan zoğal ağacları görünüşcə müxtəlif formalarda olmaqla, kol və ağac şəklində olur. Onlar ağacların seyrək olduğu, və cılız gövdəyə malik olurlar. Zoğal meyvəsindən insanlar qida kimi təzə, qurudulmuş və bişirilmiş halda istifadə edir. Müalicəvi əhəmiyyətə malik zoğal, ağciyər, bağırsaq xərçənginin qarşısını alır, insulinin miqdarını tənzim edir, ürək xəstəliklərinə görə faydalıdır, sidik yollarının infeksiyasını aradan qaldırmağa yardım edir. Səbəbi budur ki, zoğal sidiyi turşuya çevirir və əks bakteriyası olan hyuburik turşusuna çevirir.

**Açar sözlər:** zoğal, yabanı, polimorfizm

**Summary**

Cranberry (Cornus L.) is a plant genus belonging to the Cranberry family of the Cranberry family. Cranberry trees of the same age growing in forest areas have different forms in appearance, such as bushes and trees. They are sparsely wooded and have thin trunks. People use cranberry fruit as food fresh, dried and cooked. Its therapeutic value prevents brain, lung, and intestinal cancer, regulates the amount of insulin, is useful for heart diseases, and helps to eliminate urinary tract infections. This is because cranberries acidify urine and convert it into humuric acid, which is the opposite bacteria.

**Keywords:** cranberry, wild, polymorphism

**Giriş:**Ədəbiyyat məlumatlarına görə adi zoğal (Comus mas L.) ağacının təxminən 300 il ömrü olur. Meyvələri formaca yumru, oval, armudaoxşar və silindrik olmaqla, rəngi qırmızı, tünd qırmızı, qara qırmızı, bəzi formaları açıq sarı olur. Adi zoğal (Comus mas L.) meyvəsi iriliyinə, formasına və rənginə görə tam fərqlənir. Meşədə yabanı zoğal dənələri xırda olmaqla bir dənəsinin çəkisi 2-5 qram, bağlarda mədəni becərilən zoğalın bir dənəsinin çəkisi 20-22 qr-a qədər olur. Ləti çəyirdəkdən ayrılan və ayrılmayan formaları olur. Meyvələrin ətri tərkibində olan efir yağının miqdarından asılıdır [1].

Meyvələrin tərkibində 22-25% qlükoza, fruktoza, saxaroza, 11-12%, üzvü turşulardan: limon, alma, kəhraba, fol və s., 7-8% aşı maddəsi, karotin və E, B1, B2 vitamini, boyayıcı 0,62-1,6% pektin maddələri, 17% antioksidant, 1,14 amin turşuları, 1,3% sellüoza, 1,18% minerallı maddələr: dəmir, kalsium var. 55 mq %-ə qədər C vitamini olduğundan təbabətdə sinqa və çox saylı xəstəliklərə müqavimət əleyhinə tətbiq edilir. Tam yetişməmiş meyvələrdə aşılayıcı maddələrin tərkibi çox olduğundan ağız büzüşdürücülük qabiliyyətinə malikdir. Çəyirdəkdə 30% yağ olur, çox sərtdir, çəyirdək sonluqları şiş və ya küt ola bilir. Ümumiyyətlə, Azərbaycanın xalq təbabətində zoğalın meyvələrindən çox qədimdən isitməyə (malyariyaya) qarşı istifadə olunur.

**Tədqiqat Metodu:** Tədqiqat obyekti olaraq Azərbaycanın Quba, Xaçmaz, Qusar və Şəki bölgələrindən toplanmış, yüksək dərəcədə polimorfizmə malik olan yerli və introduksiya olunmuş zoğal (Cornus L.) və əzgilin (Maspilus L.) sort və formalarından istifadə edilmişdir.

Tədqiqat işinin əsas məqsədi Azərbaycanın Quba, Xaçmaz, Qusar və Şəki bölgələrində yayılmış yerli və introduksiya olunmuş zoğalın sort və yabanı formalarının areallarının müəyyən edilməsi, müasir vəziyyətinin təhlili, biomorfoloji xüsusiyyətlərinin öyrənilməsi, molekulyar markerlər əsasında identifikasiyası, genetik qohumluq dərəcələrinin təyini və bunların əsasında seleksiya proqramlarında səmərəli istifadəsi olmuşdur. Zoğal bitkisinin biomorfoloji xüsusiyyətləri və təsərrüfat göstəricilərinin təyini "Программа и методика сортоизучения плодовых, ягодных и орехоплодных культур" (1973) əsasında aparılmışdır [2].

Bu məqsədi reallaşdırmaq üçün qarşıya aşağıdakı məsələlər qoyulmuşdur: Azərbaycanın Quba, Xaçmaz, Qusar və Şəki bölgələrində elmi ekspedisiya tədqiqatları ilə ayrı-ayrı təsərrüfatlarda, həyətyanı sahələrdə, dağ-meşə ərazilərində yayılmış zoğal və əzgil sortlarının və yabanı formalarının aşkar edilməsi, qeydiyyatının aparılması, GPS texnologiyası vasitəsi ilə areallarının təyin edilməsi; Genotiplərin biomorfoloji əlamətlərinin müqayisəli tədqiqi, təsərrüfat göstəriciləri, pomoloji analiz və kəmiyyət göstəricilərinə görə oxşarlığının qiymətləndirilməsi; Mikrosatellit markerlər vasitəsilə genetik müxtəlifliyin səciyyələndirilməsi, polimorfizm informasiya həcminin hesablanması; ISSR markerlər vasitəsilə tədqiq olunan nümunələr arasında genetik qohumluğun və marker sisteminin effektivliyinin təyini.

Tədqiq olunan nümunələrində genetik müxtəlifliyi və qohumluğu müəyyən etmək üçün S.O.Rogersin təklif etdiyi CTAB protokolu ilə DNT ekstraksiya edilmiş, PZR reaksiyası aparılmış və alınmış amplifikasiya məhsulları aqaroza gelində elektroforetik analiz olunmuşdur [3].

Tədqiq edilmiş biomorfoloji, pomoloji və biokimyəvi parametrlərin orta qiyməti statistik hesablamalar üçün istifadə edilmişdir. Əlamətlər arasındakı əlaqələr əsas komponent analizi (Principal Component Analysis, PCA) ilə araşdırılmışdır. Statistik analizlər SPSS 16.0 və PAST statistik kompüter proqramında həyata keçirilmişdir. Tədqiq edilmiş əlamətlər üzrə standart kənarlaşma (SK), standart xəta (SX), minimum, maksimum, orta qiymətlər və variasiya əmsalı (CV%) cədvəl 1-də verilmişdir. Əlamətlər arasında ən yüksək variasiya əmsalı 20 ədəd meyvənin kütləsi (1595%), ən aşağı variasiya əmsalı isə çəyirdəyin kütləsində (1%) müəyyən edilmişdir. Yüksək variasiya əmsalı göstərmiş əlamətlərdən yarpağın uzunluğunu (178%) da qeyd etmək olar. Həmçinin, iyirmi ədəd meyvənin kütləsinin maksimum qiyməti ən yüksək göstəriciyə (224) malik olmuşdur.

Zoğal meyvələrinin uzunluğu, eni, saplağın uzunluğu, meyvənin kütləsi, lətin kütləsi, çəyirdəyin uzunluğu, çəyirdəyin eni, şəkərlilik faizi və yarpağın parametrləri də öyrənilmişdir. Meyvənin uzunluğu sortlardan asılı olaraq 7.6-29.4 mm arasında dəyişmişdir. Ən yüksək göstərici adi zoğal (Xaçmaz) sortunda, ən aşağı isə Cır zoğal (Qusar) formasında müşahidə olunmuşdur. Meyvənin eninin ölçüləri də müxtəlif olmuşdur. Cır zoğal (Qusar) forması 11.3 mm olub ən aşağı göstəriciyə, Qafqaz sortu isə 28.6 mm olaraq ən yüksək göstəriciyə malik olmuşdur.

Digər parametrlərlə yanaşı meyvə saplağının uzunluğu da öyrənilmişdir. Bu ölçülər 30.2-63.3 mm arasında dəyişmişdir ki, ən qısa saplaq Cır zoğalda (Qusar), ən uzun isə Qafqaz zoğal sortunda aşkarlanmışdır.

Tədqiqatda, həmçinin bir meyvənin orta kütləsi 1.01-11.2 qr arasında dəyişmişdir. Beləliklə, kütləsi ən kiçik olan meyvə Cır zoğal (Qusar) formasında, kütləsi ən yüksək olan meyvə isə Qafqaz zoğal sortunda müşahidə edilmişdir.

Öyrənilən sort və formaların keyfiyyətini müəyyənləşdirmək üçün şirədə ümumi şəkərin faizlə miqdarı öyrənilmişdir. Ən yüksək şəkərlilik göstəricisi Adi zoğal (Xaçmaz) formasında (26.9 %), ən az isə Kəhrəba Cır zoğal sortunda (11.3 %) olmuşdur.

Beləliklə, bu tədqiqat nəticələri daha məhsuldar, keyfiyyətli, yaxşı görünüşə malik, bazarın tələbini ödəyən yeni sortların yaradılmasında istifadə edilə bilər.

**Cədvəl 1. Zoğal bitkisinin sort və formalarının təsərrüfat göstəriciləri və pomoloji analizi**

| Characters (əlamətlər) | Abbreviation (ixtisar) | Min | Max | Orta | SX | SK | CV % |
|---|---|---|---|---|---|---|---|
| Meyvənin Uzunluğu | MU | 8 | 29 | 22 | 0 | 4 | 16 |
| Meyvənin eni | ME | 7 | 29 | 21 | 1 | 4 | 19 |
| Saplağın uzunluğu | SU | 24 | 63 | 39 | 1 | 8 | 67 |
| Çəyirdəyin kütləsi | ÇK | 0 | 1 | 1 | 1 | 0 | 1 |
| Lətin kütləsi | LK | 1 | 25 | 24 | 0 | 3 | 9 |
| Ümumi şəkər | ÜŞ | 11 | 27 | 16 | 0 | 4 | 16 |
| Çəyirdəyin uzunluğu | ÇU | 6 | 13 | 7 | 0 | 2 | 3 |
| Çəyirdəyin eni | ÇE | 6 | 10 | 4 | 0 | 1 | 2 |
| Meyvənin kütləsi | MK | 1 | 11 | 10 | 0 | 2 | 4 |
| İyirmi meyvənin | İMK | 20 | 224 | 203 | 5 | 40 | 1595 |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| kütləsi | | | | | | | |
| Yarpaq saplağının uzunluğu | YSU | 30 | 52 | 22 | 1 | 5 | 20 |
| Yarpağın uzunluğu | YU | 64 | 122 | 58 | 2 | 13 | 178 |
| Yarpağın eni | YE | 28 | 68 | 41 | 1 | 8 | 68 |

ISSR sürətli, sadə, yüksək təkrar olunma qabiliyyətinə malik bir metoddur. ISSR markerlər, adətən, yüksək polimorfizm nümayiş etdirirlər və onların ən böyük üstünlüyü genom ardıcıllığı haqqında əvvəlcədən heç bir informasiyanın tələb olunmamasıdır [4]. Zoğal genotipinin genetik müxtəlifliyinin tədqiqində meyvə bitkiləri üçün xarakterik olan 8 ISSR praymer üzrə ümumilikdə 68 bənd sintez olunmuşdur ki, bunlardan 47-si (69.1%) polimorf, 21-i (30.9) isə monomorf olmuşdur. Lokus üzrə amplifikasiya olunmuş fraqmentlərin sayı 7-10 arasında dəyişmişdir. Alınmış fraqmentlərin uzunluq diapazonu 100-1200 n.c. arasında dəyişmişdir.

Ən çox amplikon sayı (10 ədəd) IS 50 və IS 54 praymerləri ilə sintez olunmuşdur. IS 50 praymeri ilə sintez olunan amplikonların 8-i polimorf olmuşdur. IS 54 praymerində isə sintez olunan bəndlərin 5-i polimorf, digər 5-i isə monomorf olmuşdur. Ən az amplikon sayı IS 3 və IS 48 praymerlərində (7 amplikon) qeydə alınmışdır. IS 3 praymerindəki amplikonların 4-ü polimorfdur. IS 48 praymeri vasitəsilə isə sintez olunan bəndərin 5-i polimorf xarakter daşımışdır. Polimorf bəndlərin sayı 4-8 arasında dəyişmiş, orta hesabla 5.9 ədəd təşkil etmişdir. Hər praymerə düşən bənd sayı 8.5 ədəd təşkil etmişdir.

Cədvəl 2. ISSR praymerləri ilə zoğal genotiplərində təyin olunmuş polimorfizm və genetik müxtəlifliyin əsas parametrləri

| Praymerlər | Ardıcıllıq (5-3) | Sintez olunmuş bəndlərin sayı | Polimorf bəndlərin sayı | Polimorfizm % | Rp | PİC | EMR | MI | MRp | GM |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| IS 2 | $(GA)_9$ C | 9 | 6 | 70 | 5.56 | 0.33 | 6.75 | 2.2 | 0.02 | 0.96 |
| IS 3 | $G(TG)_9$ | 7 | 4 | 57 | 7.46 | 0.41 | 4.1 | 1.6 | 0.02 | 0.85 |
| IS 37 | $(CA)_8$ GT | 8 | 6 | 75 | 5.00 | 0.33 | 5.6 | 1.7 | 0.03 | 0.94 |
| IS 47 | $(ACC)_6$ | 8 | 5 | 62.5 | 6.30 | 0.41 | 5.6 | 2.3 | 0.02 | 0.91 |
| IS 48 | $(ATG)_8$ | 7 | 5 | 71.4 | 5.16 | 0.43 | 4.2 | 1.7 | 0.03 | 0.93 |
| IS 50 | $(GAA)_6$ | 10 | 8 | 80 | 7.34 | 0.45 | 8.0 | 3.6 | 0.01 | 0.97 |
| IS 54 | $(AG)_8$ C | 10 | 5 | 50 | 8.34 | 0.41 | 8.0 | 3.3 | 0.01 | 0.93 |
| UBC 868 | $(GAA)_6$ | 9 | 8 | 89 | 4.46 | 0.32 | 6.8 | 2.0 | 0.03 | 0.89 |
| Ümumi | - | 68 | 47 | | | | | | | |
| Orta qiymət | - | 8.5 | 5.9 | 69.4 | | | | | | 0.92 |

**Nəticə** :Cədvəl 2-dən göründüyü kimi, praymerlər üzrə polimorfizm göstəricisi 50-89% arasında dəyişmiş, orta polimorfizm 69.4% təşkil etmişdir.

Bundan əlavə digər istiqamətdə aparılan tədqiqatlar göstərmişdir ki, təbii şəraitdə yetişən zoğal meyvələrinin ekstraktlarında antioksidant maddələrin miqdarı mədəni zoğala nisbətən bir qədər yüksəkdir.

**Ədəbiyyat siyahısı**

1. Məmmədov Ş.Ş., Qurbanov M.R. Adi zoğalin (cornus mas l.) bioekologiyasi və iqtisadi əhəmiyyəti. Bakı. 2016. 146 s.
2. Лобанов Г.А. "Программа и методика сортоизучения плодовых, ягодных и орехоплодных культур" Мичуринск 1973. 494 с.
3. [12]Bornet, B. and Branchard, M. 2001. "Nonanchored inter simple sequence repeat (ISSR) markers: Reproducible and specific tools for genome fingerprinting." *Plant Molecular Biology Reporter* 19(3): 209-
4. [2]Ganopoulos, I., Moysiadis, T., Xanthopoulou, A., Ganopoulou, M., Avramidou, E., Aravanopoulos, F.A., Tani, E., Madesis, P., Tsaftaris, A., Kazantzis, K., 2015. Diversity of morpho-physiological traits in worldwide sweet cherry cultivars of Gene Bank collection using multivariate analysis. Sci. Hortic. 197, 381

# YEVLAX RAYONUNUN SƏHRA VƏ YARIMSƏHRA BİTKİLİYİNDƏ RAST GƏLİNƏN TƏSƏRRÜFAT ƏHƏMİYYƏTLİ NÖVLƏR

**MƏMMƏDOVA ZÜLFİYYƏ CƏLAL QIZI**
Bakı Dövlət Universiteti,
Biologiya fakültəsi
*zulfiyya_m@rambler.ru*
BAKI-AZƏRBAYCAN, Z.XƏLILOV-23, AZ 1148

**VAHİDLİ AYTAC VİTALİQ QIZI**
Bakı Dövlət Universiteti,
Biologiya fakültəsi
*aytac_vahidli@mail.ru*
BAKI- AZƏRBAYCAN, Z.XƏLİLOV-23, AZ 114

**XÜLASƏ**

Kür çayının sağ sahilində düzənlik bir sahədə yerləşən Yevlax rayonu, Gəncə-Qazax düzənliyinin cənub-şərqi, Qarabağ və Şirvan düzlərinin şimal-qərb kənarı ilə sərhədlənir. Eyni zamanda Yevlax rayonu Ağdaş, Bərdə, Tərtər, Goranboy, Samux, Qax, Şəki rayonları ilə həmsərhəddir. Ümumi ərazisi 1465.4 kv metr olan Yevlax rayonu özünəməxsus rəngarəng bitki örtüyünə malikdir. Qədim ipək yolunun üzərində yerləşən Yevlax rayonunun bitki örtüyü əsasən yarımsəhra tiplidir. Tədqiqat zamanı ərazi florasınsda rast gəlinən yarımsəhra, səhra, çəmən, meşə, bataqlıq və s. kimi bitkilik tipləri öyrənilmiş, o cümlədən adı "Qırmızı Kitab"a düşən, nəsli kəsilmək təhlükəsində olan, nadir, endemik növlərin siyahısı tərtib olunmuşdur. Həmçinin tədqiqat ərazisində rast gəlinən boz-çəmən, çəmən-boz, allüvial çəmən, şabalıdı, şorakətvari boz-qonur, əksər hallarda isə şoran torpaqlarda təsərrüfüt əhəmiyyətli qiymətli növlərin daha çox yayılması aşkarlanmış, onların flora konspekti hazırlanmış və bu növlərin əmələ gətirdiyi bitki qruplaşmaları da müəyyən edilmişdir. Aparılan tədqiqatlardan aydın olmuşdur ki, ərazidə rast gəlinən təsərrüfat əhəmiyyətli növlər qış otlaq sahələrinin formalaşmasında mühüm əhəmiyyət kəsb edir, ancaq bu növlərin əksəriyyəti yarımsəhra bitki örtüyündə aparılan, uzun müddətli otarılma nəticəsində sıradan çıxmaqdadır. Onların qorunması, mühafizə edilməsi və ehtiyatının artırılması vacib məsələlərdən biridir. Bu baxımdan Yevlax rayonu ərazisində rast gəlinən təsərrüfat əhəmiyyətli növlərin tədqiq edilməsi gələcəkdə qış otlaq sahələrinin zənginləşdirilməsi, yem balansının artırılması və kənd təsərrüfatının inkişı baxımından aktuallıq kəsb edir.

**ABSTRACT**

Yevlakh district is situated on the plain on the right side of the Kura River and shares borders with various other districts such as Agdash, Barda, Tarter, Goranboy, Samukh, Gakh, Sheki. The district is located at the southeastern part of the Ganja-Gazakh plain and at the northwestern edge of the Karabakh and Shirvan plains. With a total area of 1465.4 square meters, the district boasts of a colorful vegetation. The Yevlakh district, located on the ancient silk road, is mostly dominated by semi-desert vegetation. During the study, various vegetation types such as semi-desert, desert, meadow, forest, swamp, etc. were found in the area. The study also revealed a list of rare, endemic species that are categorized under the "Red Book" and are at risk of extinction. The area is home to valuable species of gray-grass, grass-gray, alluvial grass, brown, saline-brown soils. A synopsis of their flora was prepared, and plant groups formed by these species were also determined. After conducting research, it was observed that economically important species in the area are crucial for the formation of winter pastures. Unfortunately, many of these species are gradually becoming extinct due to prolonged grazing in the semi-desert vegetation. Conserving and protecting the wildlife in the Yevlakh region is crucial. Researching economically important species found in this area is important for enriching winter grazing areas, increasing the fodder balance, and improving the agriculture.

Açar sözlər: allüvial, çəmən, meşə, bataqlıq, flora.

**GİRİŞ**

Qışı quraq keçən, mülayim-isti yarımsəhra və quru çöl iqliminə malik, Yevlax rayonu ərazisindən Kür çayı, Əlican, Korçay və İncəçayın aşağı axınları keçir. O cümlədən, Mingəçevir su anbarının cənub şərq hissəsi, Varvara su anbarı Yevlax rayonu ərazisindən keçir ki, bu da ərazidə olan təsərrüfat əhəmiyyətli növlərin inkişafina şərait yaradır. Hal-hazırda baş verən qlobal iqlim dəyişkənlikləri birbaşa flora və faunanın dəyişikliyə məruz qalmasına səbəb olur, bu da gələcəkdə ekosistemlər üçün təhlükə yaradır. Bu kimi hallar həm də nəsli kəsilmək və itmə təhlükəsində olan nadir, endemik növlərin məhvinə gətirib çıxara bilir. Azərbaycan Respublikasının botaniki- coğrafi rayonlar üzrə flora və bitki örtüyünün öyrənilməsi bu baxımdan dövrün ən aktual məsələlərindəndir. Bitki örtüyünə görə öz zənginliyi ilə seçilən Azərbaycan Respublikasının Yevlax rayonunun da özünəməxsus bitki aləmi vardır.

Yuxarı Qarabağ və Yuxarı Şirvan kanallarının yuxarı hissələri qədim yaşayış məskənlərindən biri olan Yevlax rayonunun ərazisindədir. Tuqay meşə, düzən gölməçəlik və subasar çəmən, eləcə də səhra bitkiləri ərazi üçün xarakterik olsa da, tədqiqat ərazisinin bitki örtüyü əsasən yarımsəhra tiplidir. Qeyd olunan bitkilik tipləri içərisində səhra bitkiləri də geniş yayılmışdır.

Yevlax rayonunun düzənlik ərazilərində əsasən yovşanlıqdan ibarət yarımsəhralar formalaşmışdır ki, bu yarımsəhra örtüyü uzun müddətli mal-qara otarılması nəticəsində öz ilkin vəziyyətini itirmişdir. Adı "Qırmızı Kitab"a düşən yulğun kollarına da bu ərazidə rast gəlinir ki, bunlar da əsasən suvarılmayan, şumlanmayan sahələrdə qalmışdır (Azərbaycan Respublikasının "Qırmızı kitab"ı I, 2023). Bu növlər həmçinin quraqlığa və şoranlığa davamlı olduğundan yaşıllaşdırmada böyük əhəmiyyətə malikdirlər.

Tədqiqat ərazisinin səhra və yarımsəhra bitki örtüyü paxlakimilər, taxılkimilər, xaççiçəkkimilər, mürəkkəbçiçəklilər və s. fəsilələrə aid olan növlərlə zəngin olub, onların əksəriyyəti yem əhəmiyyətli bitkilərdir. Bu fəsilələrə daxil olan novlərin qorunması, kənd təsərrüfatında maldarlığın inkişafinda yem ehtiyatının artırılması baxımından önəm kəsb edir. Bu baxımdan tədqiqat zamanı Yevlax rayonunun səhra və yarımsəhra bitkiliyində rast gəlinən təsərrüfat əhəmiyyətli növlərin öyrənilməsi qarşıya məqsəd qoyulmuşdur.

**TƏDQIQAT METODU**

2023-2024-cü ildə aparılan tədqiqat zamanı tədqiqatın materialı olaraq Yevlax rayonunun səhra və yarımsəhra bitkiliyində rast gəlinən təsərrüfat əhəmiyyətli növlər olmuşdur. Bu zaman tədqiqat ərazisində rast gəlinən növlərin ümumi siyahısı çıxarılaraq flora konspekti tərtib edilmiş, sistematik strukturu müəyyənləşdirimiş, bəzi nümayəndələrin bioekoloji xüsusiyyətləri öyrənilmiş, onların səhra və yarım səhra bitkiliyində əmələ gətirdikləri bitki qruplaşmaları aydınlaşdırılarkən müasir geobotaniki metodlardan istifadə olunmuşdur (Полевая геоботаника, 1959-1979; Флора Азербайджана, 1950-1961).

**NƏTICƏ**

Yevlax rayonunun səhra və yarımsəhra bitkiliyində aparılan tədqiqatlar zamanı salxımvari bağırdələn (*Tragus racemosus* (L.) All.), qısasünbül bülbülotu (*Phalaris brachystachys* Link), Prilipko şiyavı (*Stipa prilipkoana* Gossh.**),** Şovis şiyavı (*Stipa szovitsiana* Trin.), duzluq toppuzlu (*Sphaerophysa salsula* (Pall.) DC.), balaca qarayonca (*Medicago minima* Grub.), Qafqaz paxladəni (*Astragalus caucasis* Pall.), Qafqaz yovşanı (*Artemisia caucasica* Willd.), şırımlı topal **(***Festuca* sulcata E.Hack.**)** və s. kimi təsərrüfat əhəmiyyətli növlər müəyyən edilmişdir.

Bu növlərdən *Stipa prilipkoana* Grossh. çoxillik qiymətli yem bitkisi olub, vegetasiya dövrünün ilk dövründə kiçik və iribuynuzlu mal-qara tərəfindən həvəslə yeyilir. Yarımsəhra bitki örtüyündə geniş rast gəlinən bu növ yüksək biçənək əhəmiyyətinə malikdir. Bu növdən digər yem bitkiləri ilə qarışıq halda silos hazırlanmasında, yarımsəhra bitki örtüyünə malik bütün ərazilərdə biçənəklərin yaradılmasında istifadə oluna bilər.

*Stipa szovitsiana* Trin. da çoxillik qiymətli yem bitkisi olub, yovşanlı, ağotlu bitki qruplaşmalarının tərkibində indikator rolunu oynayır. Azərbaycan respublikası florasında şiyav cinsinə aid növlər içərisində ən geniş yayılmış növlərdən biridir. Yaz aylarında cavan gövdə və yarpaqları bütün növ mal - qara tərəfindən həvəslə yeyilir. Lakin quru ot halında, xüsusi ilə qoyunlar tərəfindən pis yeyilir. Belə ki, quru otu çox da yüksək yem keyfiyyətə malik olmur. Qış otlaq sahələrində yovşanlı, ağotlu bitki qruplaşmalarında, adətən dominantlıq təşkil edir.

*Sphaerophysa salsula* (Pall.) DC. növü 40-100 sm hündürlüyünə malik, qollu-budaqlı, üzəri tüklü paxlalı bitki olub, yarımsəhra bitkiliyində ən çox rast gəlinən növlərdəndir. Duzluq toppuzlu növü bitkiliyin tərkibinə daxil olmaqla tək-tək və bəzən də kolluqlar, cəngəlliklər əmələ gətirir. Bu növün tərkibi alkoloidli olmasına baxmayaraq, cavan vaxtlarda mal-qara tərəfindən həvəslə yeyilir. Tərkibi C vitamini ilə zəngindir. Yarımsəhralı qış otlaqlarında yem bitkisi kimi kulturaya keçirilməsi, kənd təsərrüfatında yem balansının artırılmasına səbəb ola bilər.

*Medicago minima* Grub. Azərbaycan respublikasında səhra və yarımsəhra rayonlarında geniş yayılmış 5-20 sm hündürlüyündə, birillik, efemer paxlalı bitkilərdəndir. Bu növə yovşanlı və yovşanlı-şoran fitosenozlarında daha çox rast gəlinir. Təbii halda cücərməsi payız aylarında baş verir. Balaca qarayoncadan qış otlaqlarında bir yem bitkisi kimi qönçələmə və çiçəkləmə zamanı istifadə olunur. Meyvələnməyə qədər otlaqlarda heyvanlar tərəfindən ən həvəslə yeyilən yem bitkilərindəndir. Tərkibi qidalı maddələrlə zəngindir. Belə ki, balaca qarayonca yem qiymətinə görə çoxillik, əkilən qarayonca növlərindən geri qalmır. Hətta tərkibindəki quru maddələrə görə balaca qara yonca əkin yoncası (*Medicago sativa* L.) və mavi qarayonca (*Medicago caerulea* Less. ex Ledeb.) ilə eyni sırada durur. Bəzi ədəbiyyat məlumatlarına əsasən balaca qara yoncanın mütləq quru çəkisinin tərkibində 13,26% kül, 21,27% protein, 18,91% zülal, 4,65% sellüloza və 42,97% azotsuz ekstraktiv maddələr vardır (Полевая геоботаника, 1959-1979; Флора Азербайджана, 1950-1961).

15-25 sm hündürlüyünə malik, *Astragalus caucasis* Pall. paxlalı kol bitkisi olub, onun quru otu yaşıl kütləsinə nisbətən yaxşı yeyilir. Belə ki, bu növ tikanlı olduğundan otlaqlarda yerli əhali tərəfindən yandırılır. Odla pörtülmüş kütlə doğranılır və mal-qaranın, ev quşlarının yemlənməsi üçün yararlı, tikansız hala gətirilir. Tərkibi protein, yağ, sellüloza, azotsuz ekstraktiv maddələr və s. ilə zəngindir. Qafqaz gəvəninin yem dəyərliliyinə görə bir kiloqramı 0,71 yem vahidinə bərabərdir. Bu da bir kiloqram Qafqaz gəvəninin 710 qram vələmirə bərabər olması deməkdir. Eyni zamanda bu gəvənin faizlə həzm əmsalı quru maddəyə görə 63,3, xam proteinə görə 61,7, xam yağa görə 19,26, xam sellülozaya görə 67,86 və azotsuz ekstraktiv maddələrə görə isə 65,16 faizə bərabərdir. Bu növ səhra və yarımsəhralarda Qafqaz yovşanı və şırımlı topalla birlikdə qruplaşma əmələ gətirir (Qurbanov, Məmmədova, 2016; Gurbanov, Mammadova, Asadova, 2019).

Yevlax rayonunun səhra və yarımsəhra bitki örtüyündə rast gəlinən təsərrüfat əhəmiyyətli bitki növlərinin öyrənilməsi zamanı müxtəlif ədəbiyyat məlumatlarından aydın olmuşdur ki, əksərən bu növlərin tərkibi zülalla, yağlarla, o cümlədən vitaminlərlə, mineral maddıələrlə və s. kimyəvi elementlərlə zəngindir. Onlardan hazırlanan saman, iri və kiçik buynuzlu mal-qara tərəfindən həvəslə yeyilir. Bu baxımdan Yevlax rayonunun səhra və yarımsəhra bitki örtüyündə rast gəlinən təsərrüfat əhəmiyyətli növlərin öyrənilməsi, qış otlaq sahələrində yem balansının artırılmasına, tərkibinin zənginləşdirilməsinə, növbəlik prinsipi əsasında biçənəklərin yaradılmasına, eləcə də gələcəkdə kənd təsərrüfatı və iqtisadi sahədə müsbət nəticələrin əldə edilməsinə zəmin yaradır.

**ƏDƏBIYYAT SIYAHISI**

1. Azərbaycan Respublikasının "Qırmızı Kitab"ı I (2023). Bakı/Imak, 1-502.
2. Qurbanov E.M., Məmmədova Z.C. (2016). Yarımsəhra və şorangəli səhra bitkilik tiplərində paxlalı bitkilərin üstünlüyü ilə qeydə alınmış fitosenozlar. Azərbaycan Aqrar elmi. Azərbaycan Respublikası kənd təsərrüfatı nazirliyinin Elmi- Nəzəri jurnalı. Bakı, Tərəqqi nəşriyyatı, (1), 67-72.
3. Полевая геоботаника (1959-1979). /Под ред. Б.М.Лавренко и А.А.Корчакина. тт. I-V. М.Л./ Наука.
4. Флора Азербайджана (1950-1961). т.I-VIII. Баку/ Изд-во АН Азерб. ССР.
5. Gurbanov E.M., Mammadova Z.J., Asadova K.A. (2019). Phytocenosis Created by Leguminous Plants at Mil Steppe of Azerbaijan and Their Agricultural Importance. Pelagia Research Library Asian Journal of Plant Science and Research, CODEN (USA): AJPSKY, 9(2), 1-5.

# BÖYÜK QAFQAZIN QƏRB HISSƏSININ TƏBİİ VƏ MƏDƏNİ DENDROFLORASININ TƏHLİLİ

**b.ü.f.d dosent Samirə Bağırova, Mütəxəssis Leyla Atayeva,**
**Mütəxəssis Mirhüseyin Səfərov, Mütəxəssis Cəmalə Ağayeva,**
**Mütəxəssis Səriyyə Əhmədova, Mütəxəssis Lalə Nəsirli**

"Dendrologiya Bağı" Publik Hüquqi Şəxs
*atayeva-2019@mail.ru*
BAKI, AZƏRBAYCAN

**XÜLASƏ**

Böyük Qafqazın qərb hissəsi təbii və mədəni dendroflorasının müasir vəziyyəti araşdırılmış, bitkilərin yayılma arealları dəqiqləşdirilmiş, nadir və nəsli kəsilməkdə olan növlərin invertarziyası aparılmışdır. Qeyd etmək lazımdır ki, tədqiqat apardığımız ərazi flora biomüxtəlifliyi baxımından çox zəngin olmaqla, bu bölgə öz relyef quruluşuna görə nadir bitkiləri müxtəlif bitkilik tiplərində cəmləşməklə, əlverişli subtropik qurşaqda botaniki-coğrafi mövqeyə malikdir. Ağac-kol bitkilərinin yayılma arealları və meşə bitkiləri, introdusent növlərin taksasiyası öyrənilmiş, antropogen və əlverişsiz iqlim amillərinin meşə fonduna təsiri təhlil edilmişdir. Zaqatala bölgəsində *Pterocarya pterocarpa* Michx., *Pinus kochiana* Klot. və *Buxus colchica* Pojark. növləri yayılan ərazilərdə monitorinq aparılmışdır. Aşağı meşə qurşağında inkişaf etmiş, müxtəlif ağac və kol bitkiləri hərtərəfli araşdırılmışdır. *Fagus* L., *Carpinus* L., *Tilia* L., *Ulmus* L. *Quercus* L., *Alnus* Mill., *Juglans* L., *Morus* L., *Carpinus* L., *Acer* L., *Tilia* L., *Fraxsinus* L., *Acer* L. və s. kimi ağac cinslərindən ibarət növlər *Fagus orientalis* Lipsky., *Quercus macranthera* Fisch., *Carpinus caucasica* Grossh., *Betula platyphylla* Suk., *Fraxinus excelsior* L., *Acer laetum* C.A.Mey, *Tila cordata* Mill., *Tila caucasica* Rupr., *Diospyros lotus* L., *Ulmus caprinifolia Rupp., Carya illinoinensis* K. Koch., *Pterocarya pterocarpa* Spach., *Pinus kochiana* Klot., *Castanea sativa* Mill.,*Corylus colurna* L., *Alnus barbara* C.A.Mey, *Pinus hamata* D.Sosn və s. kol bitkilərindən *Crataegus* L., *Mespilus* L., *Rubus* L., *Prunus* L., *Rosa* L., *Juniperus* L., *Euonymus* L., cinslərinə aid növlərdən *Cornus mass* L., *Berberis vulgaris* L., *Sorbus aucuparia* L., *Rhamnus nigra* L., *Prunus divaricata* Ledeb., *Prunus spinosa* L., *Mespilus germanica* L. və s. ibarətdir. Azərbaycan florası üçün nadir sayılan və böyük elmi maraq doğuran iynəyarpaqlı qaracöhrə, qarmaqvari şam ağacı və ancaq Zaqatala qoruğuna məxsus olan *Rhododendron caucasicum* Pall. bitir.

**AÇAR SÖZLƏR: Böyük Qafqaz, *Fraxinus excelsior* L., biomüxtəliflik**

## ANALYSIS OF THE NATURAL AND CULTURAL DENDROLOGY OF THE WESTERN PART OF THE GREATER CAUCASUS

**ABSTRACT**

The modern state of the natural and cultivated dendrology of the western part of the Greater Caucasus was investigated, the distribution areas of the plants were clarified, and the inversion of rare and endangered species was carried out. It should be noted that the area where we are conducting our research is very rich in flora biodiversity, this region has a favorable dendrology tropical zone botanically and geographically, with the concentration of rare plants in different types of vegetation due to its relief structure. Distribution areas of tree-shrub plants and forest plants and, the taxonomy of introduced species were studied, and the impact of anthropogenic and unfavorable climatic factors on the forest fund was analyzed. *Pterocarya pterocarpa* Michx., *Pinus kochiana* Klot. in Zagatala region. and Buxus colchica Pojark. monitoring was carried out in the areas where the species spread. The trees and shrubs developed in the lower forest belt were thoroughly investigated. *Fagus* L., *Carpinus* L., Tilia L., Ulmus L. *Quercus* L., *Alnus* Mill., *Ju*glans L., *Morus* L., *Carpinus* L., *Acer* L., *Tilia* L., *Fraxsinus* L., *Acer* L. and so on. species of tree genera such as *Fagus orientalis* Lipsky., *Quercus macranthera* Fisch., *Carpinus caucasica* Grossh., *Betula platyphyll*a Suk., *Fraxinus excelsior* L., *Acer laetum* C.A. May, *Tila cordata* Mill., *Tila caucasica* Rupr., *Diospyros lotus* L., *Ulmus caprinifolia* Rupp., *Carya illinoinensis* K. Koch., *Pterocarya pterocarpa* Spach., *Pinus kochiana* Klot., *Castanea sativa* Mill., *Corylus colurna* L., *Alnus barbara* C.A. May, *Pinus hamata* D. Sosn, etc. from shrubs *Crataegus* L., *Mespilus* L., *Rubus* L., *Prunus* L., *Rosa* L., *Juniperus* L., *Euonymus* L., from species belonging to the genera *Cornus mass* L., *Berberis vulgaris* L., *Sorbus aucuparia* L., *Rhamnus nigra* L., *Prunus divaricata* Ledeb., *Prunus spinosa* L., *Mespilus germanica* L., etc. consists of. Coniferous sycamore, hook-shaped pine, and *Rhododendron caucasicum* Pall., which are rare for the flora of Azerbaijan and are of great scientific interest, belong only to the Zagatala Reserve.

**KEYWORDS: Greater Caucasus, *Fraxinus excelsior* L., biodiversity**

## GİRİŞ

Şəki-Zaqatala iqtisadi rayonu Azərbaycanın şimal-qərbində, Böyük Qafqaz dağlarının cənub yamacında yerləşir, Balakən, Zaqatala, Şəki, Oğuz və Qəbələ inzibati rayonlarının ərazilərini əhatə edir. İqtisadi rayonun ərazisinin ümumi sahəsi 8,96 min km$^2$ olmaqla ölkə ərazisinin 10,3 faizini təşkil edir. İqtisadi rayonun relyefi yüksək dağlıq, orta dağlıq və dağətəyi hissələrə bölünür. İqtisadi rayon torpaq ehtiyyatları əsasən Alazan-Əyriçay depresiyasında yerləşir. Geomorfoloji cəhətcə iqtisadi rayon ərazisində yüksəklik fərqinin böyük olması təbii şəraitin müxtəlifliyinə səbəb olmuşdur (Mustafabəyli, 2020).



**Şəkil 1.** Zaqatala Dövlət Təbiət Yasaqlığı ərazisinin dendroflorası

Ərazi əsasən mülayim iqlim şəraitə malikdir, Acınohur yaylası və Alazan-Əyriçay vadisində semiarid tipli subtropik iqlim də mövcuddur. Şəki-Zaqatala iqtisadi rayonu ərazisinin aşağı hissəsinə quru qış ilə müşayiət olunan mülayim-isti yarımsəhra və çöl iqlimi, dağətəyi hissəsinə yağıntıların bərabər paylanma və quru qış ilə müşayiət olunan mülayim isti iqlim, yuxarı hissəsinə isə rütubətli qışı olan soyuq iqlim şəraiti səciyyəvidir. Fəal temperaturların cəmi 3000-4000 $^oC$ arasında dəyişir.

Şaxtasız müddət 240-270 gündür. Qış fəsli nisbətən mülayimdir: yanvarın orta aylıq temperaturu 1 $^{o}$C şaxtadan 1,5 $^{o}$C isti, mütləq minimumların orta kəmiyyəti 10-15 $^{o}$C şaxta, qar örtüyünün davamiyyəti isə 30-50 gün təşkil edir. Ən isti ay iyuldur: orta aylıq temperatur 22-26 $^{o}$C-dir. Rütubətlənmə şəraitinə görə Şəki-Zaqatala bölgəsi Lənkəran-Astara bölgəsindən sonra ikinci yeri tutur. İllik yağıntının miqdarı yüksəkliklərə doğru təxminən 300 mm-dən (Acınohur yaylasında) 1200 mm-dək (yüksəkdağlıqda) tədricən artır. Şəki-Zaqatala iqtisadi rayonu ərazisinin 27 faizini meşə massivləri təşkil edir. Onların əsas hissəsi Balakən, Zaqatala, Qax və Oğuz rayonlarının ərazisindədir (İbrahimov, 2011) (Cədvəl 1.).

***Cədvəl 1.*** *Qiymətli ağac bitkiləri*

| | **Latın** | **Azərbaycan** |
|---|---|---|
| | *Acer platanoides* L. | Çinaryarpaq ağcaqayın |
| | *Acer campectre* L. | Çöl ağcaqayını |
| | *Acer laetum* C.A.Mey. | Gözəl ağcaqayın |
| | *Acer trautvetteri* Medv. | Trautvetter ağcaqayını |
| | *Alnus barbata* C.A.Mey. | Qızılağac |
| | *Corylus iberica* Vittm. Et Kem.-Nat. | Ayıfındığı |
| | *Fagus orientalis* Lipsky. | Şərq fıstığı |
| | *Fraxinus excelsior* L. | Adi göyrüş |
| | *Juglans regia* L. | Yunan qozu |
| 0 | *Taxus baccata* L. | Giləmeyvəli qaracöhrə |
| 1 | *Ulmus elliptica* C.Koch. | Ellipsvari qarağac |
| 2 | *Quercus castaneifolia* C.A.Mey, | Şabalıdyarpaq palıd |
| 3 | *Quercus macranthera* Fisch | Şərq palıdı |

Baş Qafqaz sıra dağlarının cənub yamacı Zaqatala və Balakən rayonlarının ərazisində dəniz səviyyəsindən hündürlüyü 650-3646 m arasında dəyişən Zaqatala Dövlət Təbiət Qoruğu fəaliyyət göstrərir. Qoruğun sahəsi 28844 ha olub, burada 900-dən artıq bitki növü yayılmışdır (Əsgərov, 2005). Qoruq ərazisinin 60 %-dən çoxunu təşkil edən enliyarpaqlı meşələrdə əsas landşaftyaradıcı edifikator ağac növləri olan alma (*Malus* Mill.), alça (*Prunus divaricata* Ledeb), ağcaqayın (*Aser caucasica* L.), göyrüş (*Farxins excelsior* L.), vələs (*Carpinus caucasica* L.), yemişan (*Crataegus* L.), zoğal (*Cornus mas* L.), ayı fındığı (*Corylus colurna* Roth.), yunan qozu (*Juglans regia* L.), palıd (*Quercus macranthera* F.), söyüd (*Salex* L.), cökə (*Tilia* R.), əzgil (*Mespilus* L.), başınağac (*Viburnum opulus* L.), fıstıq (*Faqus orientalis*), qaracöhrə (*Taxus baccata* S.F.Gray) və s. bitkilərə rast gəlinir (Cədvəl 2.).

***Cədvəl 2.*** *Dərman əhəmiyyətli bitki növləri*

| | **Latın** | **Azərbaycan** |
|---|---|---|
| | *Achillea millefolium* L. | Adi boymadərən |
| | *Allium victorialis* L. | Qalib soğan |
| | *Allium ursinum* L. | Ayısoğanı |
| | *Antennaria dioica* (L.) Gaertn. | Pişik pəncəsi |
| | *Atropa caucasica* Kreyer | Qafqaz xanımotu |
| | *Betula pendula* Roth | Əyilən tozağacı |
| | *Capsella bursa-pastoris* (L.) Medik. | Quşəppəyi |
| | *Centaurium umbe*llatum Gilib. | Qızıl çətir |
| | *Daphne mezereum* L.. | Canavargiləsi |
| 0 | *Digitalis ferruginea* L. | Üskükotu |

| | | |
|---|---|---|
| 1 | *Hyoscyamus niger* L. | Qara bat-bat |
| 2 | *Hypericum perforatum* L. | Dazıotu |
| 3 | *Juniperus oblonga* M.B. | Qafqaz ardıcı |
| 4 | *Leonurus villosa* Dsf. | Damotu |
| 5 | *Lauracerasus officinalis* Roem. | Dərman dəfnəgilənarı |
| 6 | *Malva neglesta* Wallr. | Əməköməci |
| 7 | *Malva silvestris* L. | Meşə ımıköməci |
| 8 | *Malus orientalis* (Ugl.) Juz. | Cır alma ağacı |
| 9 | Nasturtium officinale (L.) R.Br. | Dərman qıjısı |
| 0 | *Rosa canina* L. | İtburnu |
| 1 | *Sambucus nigra* L. | Qara gəndalaş |
| 2 | *Sambucus ebulus* L. | Otşəkilli gəndalaş |
| 3 | *Sorbus torminalis* (L.) Crantz. | Ağrıovunduran quşarmudu |
| 4 | *Senecio platyphyllus* (M.B.) D.C. | Xaşəvər (xaç gülü) |
| 5 | *Thymus nummularius* M.B. | Kəklikotu |
| 6 | *Thymus transcausicus* Ronn. | Zaqafqaziya kəklikotusu |
| 7 | *Thymus caucasicus* W. | Qafqaz k'klikotusu |
| 8 | *Urtica dioica* L. | İkievli gicitkan |
| 9 | *Verbena officinalis* L. | Dərman minaçiçəyi |

Zoğal (*Cornus mas* L.) mühafizə zonasında yamac boyunca daha geniş yayılmışdır. Yamacın ətəklərində (dəniz səviyyəsindən 772 m hündürlükdə adi zoğal 2,4-6,0 m hündürlükdə, gövdəsinin diametri 14-34 sm) digər bitkilərlə sıx vəhdət yaradan yemişan (*Crataegus* L.), alma (*Malus* Mill.), şabalıd (*Castanea sativa* Mill.), palıd (*Quercus* L.) və alça (*Prunus cerasifera* Ehrh.) ağacları bitir. Bu meşələrdə region üçün səciyyəvi olan bir sıra ağac növləri-dəmirqara, rododendron, qara murdarça, zoğal, əzgil, alça, və başqa kol bitkilərinə də rast gəlinir. Qoruğun yaradılmasında əsas məqsəd dağ-meşə landşaftlarına məxsus olan Böyük Qafqaz dağlarının cənub yamaclarındakı nadir bitki və heyvanlarının təbiət komplekslərinin qorunmasıdır (Məmmədov, 2015) (Cədvəl 3.).

***Cədvəl 3.*** *Efir yağlı bitkilər*

| | Latın | Azərbaycan |
|---|---|---|
| | *Alliaria officinalis* Andrz. | Dərman sarımsaqotu |
| | *Asperula odorata* L. | Ətirli çətiryarpaq |
| | *Carum carvi* L. | Adi zirə |
| | *Geum urbanum* L. | Şəhər çınqılotu |
| | *Hesperis matronalis* L. | Gecə bənövşəsi |
| | *Hippomarathrum crispum* (Pers.) Boiss. | Təpəçərşənbəotu |
| | *Laser trilobum* (Jacq.) Borkh. | Üçdilim dağrazyanası |
| | *Lonicera caprifolium* L. | Keçi doqquzdonu |
| | *Pastinaca armena* F. et M | Erməni xımı |
| 0 | *Smyrnium perfoliatum* L. | Dəlinmişyarpaq oxlivə |
| 1 | *Valeriana officinalis* L. | Dərman pişikotu |
| 2 | *Althaea hirsuta* L. | Gülxətmi |
| 3 | *Betula Litwinowii* A.Doluch. | Litvinov tozağacı |
| 4 | *Brunella vulgaris* L. | Adi qarabaşcıq |
| 5 | *Cephalaria syriaca* (L.) Schrad. | Suriya qantəpəri |
| 6 | *Chamaenerium angustifolium* (L.) Scop. | Ensizyarpaq xamerion |
| 7 | *Cirsium arvense* (L.) Scop. | Çörəkkəsən |
| 8 | *Euphorbia helioscopia* L. | Günəbaxan südləyən |
| 9 | *Lithospermum officinale* L. | Dərman səfərotu |
| 0 | *Nasturtium vuligaris* (*officinale*) R.Br. | Adi acıqıjı |
| 1 | *Nepeta nuda* L. | Pişiknanəsi |
| 2 | *Scutellaria galericulata* L. | Adi başlıqotu |
| 3 | *Solidago virgaurea* L. | Qızılçubuq qızılsəbət |
| 4 | *Stachys annua* L | Birillik poruq |
| 5 | *Vaccinium vitis-idaea* L. | Mərcangilə |
| 6 | *Vaccinium arctostaphylos* L. | Qafqaz çayı |
| 7 | *Vaccinium myrtillus* L. | Mərsin |

Zaqatala Dövlət Təbiət Qoruğu ərazisindən tədarük edilmiş *Fraxinus excelsior* L. növünün toxumları "Dendrologiya Bağı"-nın təcrübə sahəsində əkilmiş, Abşeron şəraitində introduksiya perspektivliyi öyrənilərək, cücərtilərinin inkişafı iqlim amillərindən, xüsusi ilə havanın temperatur

rejimindən və nisbi rütubətdən asılılığı, yüksək cücərmə faizinə (75-80%) malik olması tədqiq edilmişdir. *Fraxinus excelsior* L. növünün hündürlüyü 10 m-ə, diametri 100 sm-ə çatan, düz gövdəli ağacdır. Qabığı açıq boz rəngli olub, uzununa və eninə dərin olmayan çatlıdır. Tumurcuqları tutqun qara rənglidir. Zoğları yoğun, yaşılımtıl-boz rəngdə, çılpaqdır. Yarpaqları lələkvari, 7-15 yarpaqcıqdan ibarətdir. Çiçəkləri süpürgəvari çiçək qrupunda yerləşir, bəzən bircinsli, çox vaxt ikicinsli olur. Meyvəsi uzunsov qanadlı, bir toxumludur. Toxumunun 1000 ədədin kütəsi 60-73q-dır. Meyvələri payızda yetişir. Kökdən pöhrə verərək yaxşı bərpa olunur. Çox tez böyüyür, meşə-çöl zonasında 30 m-dək, cənubda 60 m-dək hündürlüyə çatır. Nəmişli, məhsuldar, neytral və ya onlara yaxın torpaqlara üstünlük verir (Məmmədov, 2019) (Şəkil 2.).




**Şəkil 2**. Zaqatala Dövlət Təbiət Qoruğu ərazisində bitkilərin həyati formaları

Eni 1.15 m, uzunluğu 2,15 metr ölçüdə lək hazırlanaraq, torpaq arat edikdikdən bir gün sonra nəm torpaqda toxumlar əkilir. *Fraxinus excelsior* L. növü quru və rütubətli torpaqlarda zəif inkişaf edir, şoranlaşmaya dözmür. Bu məqsədlə, şoran torpaqlar əkin üçün hazırlanarkən hər 1 $m^2$ sahəyə 300-400 qr yanmış əhəng, 200 qr ağac külü tökülür. Eyni zamanda torpağın üst qatına peyin tökülərək dərin şumlanılır ki, torpaq və peyin qarışsın. İlkin cücərtinin əmələ gəlməsi 73 gün sonra mümkün olmuşdur. Mərdəkan Dendrologiya Bağının ərazisində qeyd olunan aylıq orta teperatur göstəricilərinə əsasən, ilkin cücərtinin əmələ gəlməsi 8,0 $^0$C-də mümkün olmuşdur. Kütləvi cücərti isə orta temperatur 9,1 $^0$C-də əldə edilmişdir. Dendrologiya Bağı ərazisində qeydə alınan aylıq orta teperatur göstəricilərinə əsasən, ilkin cücərtinin əmələ gəlməsi 8,0 $^0$C-də mümkün olmuşdur. Kütləvi cücərti isə orta temperatur 9,1 $^0$C-də əldə edilmişdir. V.A.Kolesnikovun «köklərin tam çıxarılaraq yuyulması» metodikasına əsaslanaraq növün kök sistemi tədqiq edilmişdir (Şəkil 3.).



**Şəkil 3.** *Fraxinus excelsior* L. növünün toxum və ilkin cücərtilərin tədqiqi

## TƏDQIQAT METODU

Tədqiqat işində Böyük Qafqazın qərb hissəsi ekosisteminin öyrənilməsi istiqamətində aparılmışdır. Müxtəlif coğrafi regionlarda aparılan tədqiqat işlərində bəzi növlərin boy və inkişafına dair məlumatlara A.Ş.Hacıyev (1952), A.L.Lipa (1957), P.A.Şutov (1962), İ.S.Qayevskaya (1972), S.Q.Sakova (1983) və b. işlərində rast gəlmək olar. Ağac-kol bitkilərinin həyati formalarının təhlili İ.Q.Serebryakov, C.R.Raunkier sisteminə əsasən aparılmışdır. Yaşlı bitkilərin illik boy artımı V.V.Smirnov, A.A.Molçanov, fenoloji müşahidələr isə ümumi qəbul edilmiş metodikalara əsasən aparılmış, alınan nəticələr təhlil edilmişdir. *Fraxinus excelsior* L. növünün kök sistemi quruluşu

V.A.Kolesnikovun «köklərin tam çıxarılaraq yuyulması» metodikasına, mövsümi inkişaf ritmini öyrənilməsi İ.N.Beydman üsuluna, fenoloji müşahidələr Q.N.Zaysev, cücərtilərin morfoloji xüsusiyyətləri İ.T.Vasilçenkonun, bitkilərin illik boy inkişafı S.Bellon, V.V.Siminov, A.A.Molçanova metodikası ilə öyrənilmişdir. Tədqiqat işində bir çox yerli və xarici ədəbiyyatlara istinad edilmişdir. Toxumların kütləsinin araşdırılması AND EK610-i markalı elektron tərəzi, yarpaqların arealının ölçülməsi "CİD-CI -202 LASER AREA METER" markalı cihaz vasirəsilə həyata keçirilmişdir. Tədqiq olunan növün fenoloji inkişaf mərhələlərinə dair şəxsi tədqiqatlarla yanaşı digər ədəbiyyat materiallarından da istifadə edilmişdir.

**NƏTICƏ**

Zaqatala meşə ərazisinin bitki örtüyü təhlil edilərək, taksonomik tərkibi araşdırılmış, 120 növ ağac-kol bitkisi qeydə alınmış və toxum nümunələri toplanmışdır. Zaqatala Dövlət Təbiət Yasaqlığı ərazisinin dendroflorasına iqlim dəyişkənliyinin təsiri öyrənilmiş, bitki örtüyü təhlil edilərək, 235 bitki növü araşdırılmışdır. Tədqiqat ərazisi *Quercus* L., *Alnus* Mill., *Juglans* L., *Morus* L., *Carpinus* L., *Acer* L., *Tilia* L. və s. kimi ağaclardan ibarətdir. Çay dərələrində meşə əmələ gətirən ağaclarla birlikdə *Crataegus* L., *Mespilus* L., *Rubus* L., *Prunus* L. kolları keçilməz cəngəlliklər əmələ gətirir. Zaqatala ərazisindən axan Katex çayının sahilləri hər iki tərəfdən sərt qayalıqlar və sıldırımlarla əhatə olunmuş, ətrafını isə *Fagus* L., *Carpinus* L., *Platanus* L., *Tilia* L., *Ulmus* L. və s. ağac növlərindən ibarət enliyarpaqlı qədim meşələr bürümüşdür. Tədqiqat ərazisinin təbii florasında 42 qida əhəmiyyətli, 29 balverən, 47 yem, 29 dərman əhəmiyyətli, 15 vitamin tərkibli, 27 efir yağlı, 17 qətranlı, 13 qiymətli ağac, 16 növ boyaq bitkiləri təhlil edilmişdir. Zaqatala bölgəsində dünya florasının ağac-kol bitkilərindən katalpa, ardıc, şam, sərv və s. cinslərə aid yeni növlərdən park və bağların yaşıllaşdırılmasında geniş istifadə olunaraq, bitkilərin mədəni şəraitdə böyümə və inkişafı, taksonomik tərkibi araşdırılmış, biomorfoloji təhlil zamanı məlum olmuşdur ki, həmin ərazilərdə park-bağ ekosisteminin formalaşmasında 42 növ ağac, 57 növ kol, 13 növ bəzək gülləri, 5 növ lian, 2 növ qazon bitkisindən istifadə olunmuşdur**.** Zaqatala Dövlət Təbiət Qoruğu ərazisindən tədarük edilmiş *Fraxinus excelsior* L. növünün toxumlarının cücərtilərinə hərtərəfli aqrotexniki qulluq tələb edir. Alınmış cücərtilər yüksək cücərmə faizinə (75-80%) malikdir, *Fraxinus excelsior* L. növü Abşeronun torpaq-iqlim şəraitinə tam davamlı olub, toxumla əkini mümkündür, cücərtilərin boy - inkişaf dinamikası mütəmadi izlənilmişdir. Abşeronun quru subtropik iqlim şəraitində mövsümi inkişaf ritmlərinin öyrənilməsinin nəticələri göstərdi ki, adi göyrüş növünün aktiv fəaliyyət dövrü havanın temperaturunun 22-28 $C^0$ olduğu şəraitdə müşahidə edilmişdir.

**ƏDƏBIYYAT SIYAHISI**

1. Mustafabəyli, H.L., Lətifov E.K. & Rəhimov, Y.R. (2020). Azərbaycanın Şəki-Zaqatala bölgəsinin təbii resurslarının landşaft-diaqnostik və iqtisadi xüsusiyyətləri, 73-100.

2. Məmmədov, T.S. (2019). Azərbaycan dendroflorası III cild, 291.

3. Məmmədov, T.S. Talıbov, T.H. & İsgəndər, E.O. (2015). Azərbaycanın nadir və nəsli kəsilməkdə olan ağac və kol bitkiləri, 378.

4. İbrahimov, T. O. (2011). Azərbaycan qoruqlarının ekoloji problemləri (İki hissədə), 11.

5. Əsgərov, A.M. (2005). Azərbaycanın ali bitkiləri, Azərbaycan florasının konspekti I, 247.

# ÜZÜMÜN YARPAQLARININ BURULMASI VIRUSU-3 (GLRAV-3) ILƏ YOLUXMUŞ ÜZÜMÜN (VITIS VINIFERA L.) YARPAQ HÜCEYRƏLƏRININ ULTRASTRUKTUR PATOLOGIYASI

**B.Ü.F.D. NƏRGİZ BAYRAMOVA*, B.Ü.F.D., DOS. NƏRGİZ SULTANOVA, AKADEMIK İRADƏ HÜSEYNOVA**

AR Elm və Təhsil Nazirliyi Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutu
*bayramovanargis@hotmail.com*
*BAKI, AZƏRBAYCAN*

**XÜLASƏ**

Üzüm bitikisində geniş yayılan viruslar ilk növbədə onun məhsuldarlığına, giləmeyvəsinin miqdarına və keyfiyyətinə mənfi təsir göstərməklə iqtisadiyyata böyük zərər vurur. Azərbaycanda son illərdə üzüm bitkisinin virus və fitoplazma xəstəlikləri intensiv şəkildə tədqiq olunsa da, patogenez prosesləri öyrənilməmişdir. Dünyada yayılmasına görə üzümün viruslarının top siyahısında birinci yeri tutan Üzümün Yarpaqlarının Burulması Virusu-3 (GLRaV-3) virusunun patogenezi zamanı yarpaqlarda ultrastruktur səviyyədə baş verən dəyişikliklərin öyrənilməsi çox böyük əhəmiyyət kəsb edir. Virus epidemiyalarının mürəkkəbliyini nəzərə alaraq demək olar ki, onlarla mübarizə və nəzarətin təşkili olduqca çətindir. Xəstəliklərin vaxtında, sürətli, dəqiq diaqnostikası və identifikasiyası ilə yanaşı, bitkilərin patogenə qarşı verdiyi morfo-fizioloji, biokimyəvi cavab reaksiyalarının histopatoloji dəyişikliklərlə kompleks şəkildə öyrənilməsi yarana biləcək ciddi təhlükənin qarşısını almağa kömək edər. Bitkilərin patogenlərdən müdafiəsinə dair müasir elmi tədqiqatlar, eyni zamanda, qida təhlükəsizliyi və ekoloji təmiz kənd təsərrüfatı məhsullarının əldə edilməsi nöqtəyi nəzərindən də böyük əhəmiyyətə malikdir. Bu baxımdan, GLRaV-3 virusu ilə induksiya olunan patogenezin bitki yarpaqlarında ultrastruktur səviyyəsində tədqiqi mühüm elmi-nəzəri və praktiki əhəmiyyət kəsb edir.

**AÇAR SÖZLƏR: üzüm, virus, ultrastruktur**

## GIRIŞ

Bitkilərdə patogenlik törədən virus infeksiyaları bitkinin hüceyrə strukturlarını da bir sıra dəyişikliklərə məruz qoyurlar. Hüceyrələrin ölçüsü və sayına da təsir etməklə yanaşı bitkinin orqanlarının formasının dəyişməsinə səbəb olurlar. Yuxarıda sadalanan proseslərin nəticəsi olaraq virusla yoluxma zamanı bitkinin meyvəsində, gövdə və yarpaqlarında bəzi patologiyalar müşahidə edilir. Parenxima hüceyrələrinin sayının azalması, hüceyrələrin kiçilməsi və xloroplastların zədələnmələri zamanı yarpaqlarda sarı mozaikalar müşahidə edilir (Murray, 2016).

Virus patogenezi zamanı ağızcıqların da ölçü və morfoloji quruluşlarında əsaslı dəyişikliklər müşahidə edilir. Ağızcıqlar karbon dioksidin qəbulu və transpirasiya zamanı su balansının qorunması üçün mühüm tənzimləyiciləridir. Onlar həmçinin bakteriya və göbələklər üçün baryer rolunu oynayırlar. Bakterial və göbələk patogenləri ilə bağlı tədqiqatlardan fərqli olaraq, ağızcıqların viral infeksiyada rolu haqqında çox az məlumat var (Melotto, 2008).

## TƏDQIQAT METODU

İstifadə edilmiş bitki materialları GLRaV-3 ilə yoluxması seroloji metodlarla (immuostriplər, DAS-ELİSA) təstiq edilmiş üzüm yarpaqları olmuşdur. Yarpaqların dəriciyi işıq mikroskopu altında ayrılmış, kəsiklər hazırlanmışdır. Preparat xüsusi məhlul vasitəsilə bərkidilmiş, qızılla tozlandırılmışdır. Şəkillərin hər biri 15 kV vakumda Skan Electrone Microskope (JEOL "JCM-6000" SEM3) vasitəsilə çəkilmişdir.

Yarpaqların ultrastruktur səviyyədə tədqiqi transmission elektron mikroskopu (TEM) vasitəsilə aparılmışdır Nümunələr 0,1M fosfat buferindən (pH 7,4) istifadə etməklə hazırlanmışdır. Daha sonra bu nümunələr 2%li qlütaraldehid , 2%li paraformaldehid və 0,1% pikrin turşusunun qarışığından hazırlanmış məhlul vasitəsilə fiksə edilmişdir. Nümunələrdən elektron mikroskopları üçün qəbul edilmiş protokollar əsasında bloklar (Araldit-Epon) hazırlanmışdır (Kuo, 2008).

**NƏTICƏ**

Virus infeksiyası zamanı ağızcıqların quruluş və ölçüsündə baş verən dəyişikliyin tədqiqi olduqca vacibdir. GLRaV-3 virusu ilə yoluxmuş üzüm yarpaqlarının SEM ilə tədqiqi nəticəsində məlum olmuşdur ki, ağızcıqların strukturunda dəyişikliklər müşahidə olunur. Belə ki, ağızcıqların qapayıcı hüceyrələrinin diametrləri virusla yoluxmuş bitkilərdə azalmış, ağızcıq yarığı kiçilmişdir (Şəkil 1).




**Şəkil 1.** Üzüm bitkisinin yarpağının en kəsiyinin SEM metodu ilə analizi. Ağızcıqların quruluşu. A-sağlam bitki; B-GLRaV-3 virusu ilə yoluxmuş bitki. QH-qapayıcı hüceyrələr, AY-ağızcıq yarığı

Məlumdur ki, fototənəffüs bitki metabolizminin əsas prosesinə aid olub, peroksisomlarda, xloroplast və mitoxondridə tamamlanır. Daha əvvəl da qeyd etdiyimiz kimi, viral infeksiyalar bitkilərdə fotosintez, fototənəffüs və s metabolik prosesləri pozur. Bu cəhətdən virus patogenezi zamanı mitoxondrilərdə də bir sıra dəyişikliklərin olacağının da nəzərə alaraq onların strukturunda baş verən dəyişikliklər tədqiq edilmişdir. Nəticələrdən də göründüyü kimi, virusla yoluxma zamanı mitoxondrinin formasının pozulduğu, ölçüsünün kiçildiyi məlum olmuşdur (Şəkil 2).




**Şəkil 2.** Üzüm bitkisinin yarpağının en kəsiyində mitoxondrilərin TEM metodu ilə analizi. A-sağlam bitki, B- GLRaV-3 virusu ilə yoluxmuş bitki

Mitoxondrilər təkcə OFF-ın mənbələri deyil, həm də oksidləşdirici zədələnmə yeridir. Bitkilərdə fotosintez və fototənəffüs zamanı yüksək miqdarda OFF əmələ gəldiyi zaman mitoxondrilər normal halda işləməlidir ki, bitki stressə qarşı davamlı olsun (Taylor, 2007). Əks halda mitoxondrilərin zədələnməsilə nəticələnə bilər ki, bu da bitkilərdə proqramlaşdırılmış hüceyrə ölümünə səbəb ola bilər. Nəticələrdən belə qənaətə gəlmək olar ki, hər hansı stres zamanı bitkidəki xarici simptomlar, metabolik proseslərdəki pozulmalar nəticəsində toxuma, hüceyrə və orqanoidlərdə əmələ gələn modifikasiyaların əksidir.

**MİNNƏTDARLIQ**

Bu iş Azərbaycan Elm Fondu-Qrant AEF-MCG-2022-1(42)-12/07/3-M-07 maliyyə dəstəyi ilə yerinə yetirilmişdir.

Təcrübi işlərin yerinə yetirilməsində göstərdikləri köməkliklərə görə AR ETN Zoologiya İnstitutunun əməkdaşı b.ü.f.d., dos. Elyanə Tahirovaya və Azərbaycan Tibb Univeristetinin Histologiya, embriologiya və sitologiya kafedrasının müdiri t.ü.e.d., professor Eldar Qasımov və kafedranın əməkdaşı b.ü.f.d., dos. Fuad Rzayevə dərin minnətdarlığımızı bildiririk.

**1. ƏDƏBIYYAT SIYAHISI**

6. Kuo, J. Electron Microscopy. Molecular Biomethods Handbook, – Humana Totowa, NJ, – 2008. – p. 975–1008.

7. Taylor, N.L, Millar, A.H. Oxidative stress and plant mitochondria. Mito-chondria: Practical Protocols, – 2007. 372, – p. 389-403.

8. Murray, R.R. Plant virus infections control stomatal development / R.R.Murray M.S.Emblow, A.M.Hetherington [et al.] // Scientific reports, – 2016. 6 (1), art. 34507, – p. 1-8.

9. Melotto, M, Underwood, W, He, S.Y. Role of stomata in plant innate im-munity and foliar bacterial diseases // Annual Review of Phytopathology, – 2008. 46, – p. 101-122.

# İYNƏYARPAQLI BİTKİLƏRİN ABŞERONUN LANDŞAFT DİZAYNINDA İSTİFADƏSİ

**ŞƏLALƏ GÜLMƏMMƏDOVA**

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin
Dendrologiya İnstitutu, Bakı ş.
shalala.g@mail.ru
BAKI, AZƏRBAYCAN

AR ETN Dendrologiya İnstitutu “Landşaft memarlığı” laboratoriyası tərəfindən 2019-2023-cü illərdə Abşeronun park və bağlarında elmi-tədqiqat işləri aparılmış, landşaft dizaynında iynəyarpaqlı bitkilərin taksonomik tərkibi, mənşəyi, kompozisiyalarda istifadəsi, budanma formaları öyrənilmişdir. İynəyarpaqlı bitkilər müntəzəm (həndəsi formalı) və landşaft və ya mənzərəli (orijinal formalı) üslublarda kompozisiyaların tərtibatında əsasən dekorativ kol və ot bitkiləri ilə yanaşı istifadə edilir. Bu bitkilər gözəl görünüşü ilə yanaşı ətraf mühitə çoxsaylı uçucu maddələr - fitonsidlər buraxaraq orqanizm üçün təhlükəli olan xəstəliktörədici mikrobları məhv edir, tozdan təmizləyir və havanı qatranlı maddələrlə zənginləşdirir. İynəyarpaqlı bitkilərə şam, sərv, küknar, ardıc, sərvpəri, ağ şam, qara şam, tuya və s. aiddir. Bu bitkilər park, bağ, bulvar, xiyaban, küçə, məktəb və bağçaların, yaşayış və sənaye massivlərinin yaşıl ərazilərində əkilib becərilir. Onların qış və yayda həmişəyaşıl olması landşaft dizaynında istifadəsi üçün əlverişlidir.

**Açar sözlər:** iynəyarpaqlı, bitki, landşaft

**USING CONIFEROUS PLANTS IN THE LANDSCAPE DESIGN OF APSHERON**

**ABSTRACT**

In 2019-2023, research work was carried out in the parks and gardens of Absheron by the Landscape Architecture Laboratory of the Institute of Dendrology of the AR MNO, the taxonomic

composition, origin, use in compositions, forms of pruning of coniferous plants in landscape design were studied. Coniferous plants are mainly used together with ornamental shrubs and grasses when creating compositions in regular (geometric shapes) and landscape or landscape (original shapes) styles. In addition to their beautiful appearance, these plants release numerous volatile substances into the environment - phytoncides, destroy pathogenic microbes dangerous to the body, remove dust and enrich the air with resinous substances. Coniferous plants include pine, cypress, spruce, juniper, chamecypress, fir, larch, thuja, etc. These plants are planted and grown in green areas of parks, gardens, boulevards, public gardens, streets, schools and kindergartens, residential and industrial complexes. Since they are evergreen in winter and summer, they are convenient for use in landscape design.

**Keywords:** coniferous, plant, landscape

**Giriş**

Quru subtropik iqlimə malik olan Abşeronda həmişəyaşıl iynəyarpaqlı bitkilər noyabr-dekabr aylarından başlayaraq mart ayının sonunadək park-bağların əsasını təşkil edirlər. Bu bitkilərə şam, sərv, küknar, ardıc, sərvpəri, ağ şam, qara şam, tuya və s aiddir. Qış mövsümündə bir çox yarpağını tökən bitkilər öz dekorativ xüsusiyyətlərini itirir, bağın landşaftını iynəyarpaqlılar təşkil edir. Digər mövsümlərdə isə iynəyarpaqlı bitkilər yarpağı tökülən ağac və kollara ziddiyyət yaradır və ilin hər-hansı vaxtında bağa "daimilik" hissi verir. Formaların müxtəlifliyi və dəqiqliyinə görə sərv, ardıc, tuya, küknar kimi bitkilərin budanması park və bağlara xüsusi gözəllik verir.

Abşeronda park və bağlarin salınmasında həmişəyaşıl dekorativ bitkilərə tələbat günbəgün artır. Xüsusilə son dövrlərdə Bakı şəhərində yeni salınan magistral yol kənarları, körpülərin ətrafının yaşıllaşdırılmasında həmişəyaşıl ağac və kol bitkilərinə daha çox rast gəlinir. Bu bitkilər payızda yarpağı tökülən bitkilər arasında bağın daimi sakini olub onun il boyu həmişəyaşıl xüsusiyyətlərini özündə əks etdirir. Müasir dövrdə şəhərsalmada, landşaft dizaynının qurulmasında həmişəyaşıl ağacların pilləvari yerləşdirilməsi həmin ərazilərin geniş tərtibatını özündə əks etdirir. Bu ağac və kol bitkiləri yaz və qış mövsümlərində həmişəyasıl olduğundan müxtəlif kompozisiyaların tərkibində yerləşdirilməsi bağın daimiliyinə səbəb olur. Son illərdə Azərbaycan respublikasına dünyanın müxtəlif ölkələrindən introduksiya olunan həmişəyaşıl ağac və kol bitkiləri şəhərin landşaft memarlığında xüsusi əhəmiyyət kəsb edir. Onların çətirinin quruluşu, qoxusu, rəngi, qabığı, tərkibində olan fitonsid xüsusiyyətləri Bakı şəhərində landşaft memarlığı ilə yanaşı, həm də insanların sosial şəraitini yaxşılaşdırır (Məmmədov, 2010).

Yeni əkilmiş cavan tuya, şam, qaraçöhrə və s. cinslərə aid bəzi növlər Abşeronun sərt şaxtalarına davam gətirmir, lakin onlar yazda və yayda özlərini yenidən bərpa edirlər. Zədələnmənin qarşısını almaq üçün bu növ iynəyarpaqlı bitkilər qış dövründə qardan təmizlənməlidir. Abşeronda bütün iynəyarpaqlıların toxumla çoxaldılması daha məqsədyönlüdür. Abşeronun park-bağlarında iynəyarpaqlı bitkilər geniş istifadə edilir.

Kompozisiyalar parklarda, bağlarda, bulvarda, xiyabanlarda və meşə-parklarda yaradılır. Hər dəfə müəyyən forma və tipli əkinlərdən istifadə edilir: ən sadə kompozisiyadan başlamış qazonlardan, kollardan, ağaclardan, çox miqdarda çiçəklərdən ibarət və müəyyən mənzərə yaradan mürəkkəb kompozisiyalaradək (Səfərov, 1977).

İynəyarpaqlıların mavi, yaşıl formaları dekorativ bağçılıqda çox qədimdən istifadə edilir. Bu bitkilər gözəl görünüşü ilə bərabər ətraf mühitə çoxsaylı uçucu maddələr - fitonsidlər buraxaraq orqanizm üçün təhlükəli olan xəstəliktörədici mikrobları məhv edir, havanı tozdan təmizləyir və qatranlı maddələrlə zənginləşdirir.

Sahədə iynəyarpaqlı ağac və ya kolların olması ona özünəməxsus rəng çaları, xüsusi zadəganlıq və dekorativ görünüş verir. İynələr uzun illər budaqlarda qalır və tədricən düşür, istənilən iqlim şəraitində fotosintezi davam etdirməyə qadirdirlər. Bundan əlavə, düşərkən iynələr yavaş-yavaş çürüyür və nəinki bitkilər üçün yaxşı mulça rolunu oynayır, həm də münbit torpaq qatının formalaşması üçün əla xammaldır (Витвицкая, 2005).

**Tədqiqat işinin strukturu**

İynəyarpaqlı bitkilər park, bağ, bulvar, xiyaban, küçə, məktəb və bağçaların, yaşayış və sənaye massivlərinin yaşıl ərazilərində əkilib becərilir. Onların qış və yayda həmişəyaşıl olması landşaft dizaynında istifadəsi üçün əlverişlidir. Şam, sərv, küknar və tuya çinslərinə aid növlər yarpaqlılarla

müqayisədə (ağac və kollarla) səs rejimini yaxşı tənzimləyir. Abşeronun landşaft dizaynında iynəyarpaqlı bitkilərin istifadəsini öyrənmək məqsədilə AR ETN Dendrologiya İnstitutu "Landşaft memarlığı" laboratoriyası tərəfindən 2019-2023-cü illərdə park və bağlarda elmi-tədqiqat işləri aparılmış, iynəyarpaqlı bitkilərin taksonomik tərkibi, mənşəyi, kompozisiyalarda istifadəsi, budanma formaları öyrənilmişdir. İynəyarpaqlı bitkilər müntəzəm (həndəsi formalı) və landşaft və ya mənzərəli (orijinal formalı) üslublarda kompozisiyaların tərtibatında əsasən dekorativ kol və ot bitkiləri ilə yanaşı istifadə edilir. Abşeronun park-bağlarında öyrənilən, tərkibində iynəyarpaqlı bitkilər becərilən bəzi kompozisiyalar şəkil 1-də göstərilmişdir.



**Şəkil 1.** Kompozisiyalar

Bakı şəhərinin park-bağlarında öyrənilən bəzi iynəyarpaqlı bitkilərin taksonomik tərkibi və mənşəyi cədvəl 1-də göstərilmişdir.

**Cədvəl 1**

| № | Fəsilə | Cins | Növ | Vətəni |
|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 |
| 1 | Şamkimilər - *Pinaceae* Lindl. | Şam – *Pinus* L. | Eldar şamı – *Pinus eldarica* Medw. | Avropa, Asiya |
| 2 | _____ | _____ | Adi şam – *Pinus silvestris* L. | Skandinaviya Avropa |
| 3 | _____ | Ağ şam – *Abies* Mill. | Qafqaz ağ şamı – *Abies nordmanniana* Spach. | Qafqaz, Türkiyə |
| 4 | _____ | Sidr – *Cedrus* Mill. | Himalay sidri – *Cedrus deodarata* Laws. | Əlcəzair, Mərakeş |
| 5 | _____ | Küknar – *Picea* Dietz. | Ayan küknarı – *Picea ajanensis* Fisch. | Şimali Amerika |
| 6 | Sərvkimilər – *Cupressaceae* F.W.Neger | Ardıc – *Juniperus* L. | Adi ardıc – *Juniperus communis* L. | Böyük və Kiçik Qafqaz |
| 7 | _____ | _____ | Horizontal ardıc – *Juniperus horizontalis* Moench. | Şimali Amerika, Kanada |
| 1 | 2 | 3 | 4 | 5 |
| 8 | _____ | Tuya –*Thuja* (L.) Tourk. | Qərb tuyası – *Thuja occidentalis* L. | Yaponiya |

| | | | | |
|---|---|---|---|---|
| 9 | _____ | Sərvpəri – *Chamaecyparis* Spach. | Nutkan sərvpəri – *Chamaecyparis nootkatensis* Spach. | Şimali Amerika |
| 10 | _____ | _____ | Lavson sərvpəri – *Chamaecyparis lawsoniana* Parl. | Şimali Kaliforniya |
| 11 | _____ | Sərv – *Cupressus* L. | Arizon sərvi- *Cupressus arizonica* Greene | Kaliforniya, Arizona, Meksika |
| 12 | _____ | _____ | Leylandi sərvi – *Cupressus leylandii* A.B.Jacks. | Hollandiya |
| 13 | _____ | _____ | Həmişəyaşıl sərv – *Cupressus sempervirens* L. | Kiçik Asiya, Aralıq dənizi ölkələri |
| 14 | _____ | _____ | Piramidal sərv – *Cupressus for. pyramidalis* | Kaliforniya |
| 15 | _____ | _____ | Horizontal sərv – *Cupressus for.horizontalis* | Krım, Asiya, İran, Kipr |
| 16 | _____ | Səlb – *Biota* D.Don | Şərq səlbi – *Biota orientalis* Endl. | Çin, Mancuriya |

İynəyarpaqlı bitkilər il ərzində dekorativdir, tələbkar deyil, uzunömürlüdür, park və bağa zadəganlıq, gözəllik, kompozisiyalara isə tamamlıq verir. Bundan əlavə, bu qrup bitkilərə çətirin xüsusi teksturası və forması məxsusdur. Park və bağda iynəyarpaqlı bitkini düzgün yerləşdirmək lazımdır ki, göz oxşasın və bütün gözəlliyi ilə özünü biruzə versin [4].

Dənizkənarı Milli Parkın ərazisində iynəyarpaqlı ağac-kolların budanma formaları öyrənilmişdir:

1.Sərvpəri - kvadrat, düzbucaq, konus, yaruslu

2.Küknar – konusvari

3.Tuya – spiralşəkilli

İynəyarpaqlı ağac-kolların bəzi budanma formaları şəkil 2-də göstərilmişdir:



**Şəkil 2.** Bitkilərin budanma formaları

Bitki müxtəlifliyi çoxdur və onlar insanların ən zərif zövqlərini qane edə bilər. Bitkilərə bağda lazımı yer tapmaq, düzgün əkmək və qulluq etmək, maksimal dekorativ effektə nail olmaq üçün digər bitkilərlə düzgün uygunlaşdırmaq lazımdır. Bitkilərin bioloji xüsusiyyətləri nəzərə alınmaqla düzgün seçimi, nəmişliyə, işığa, torpağın tərkibinə, qışa davamlığına olan tələblərini və dekorativ xüsusiyyətlərini bilməklə parlaq, gözəl, təkrarolunmaz bağ yaratmağa imkan verir [5].

**Nəticə**

AR ETN Dendrologiya İnstitutu "Landşaft memarlığı" laboratoriyası tərəfindən Abşeronun park-bağlarında iynəyarpaqlı bitkilərin taksonomik tərkibi, mənşəyi, kompozisiyalarda istifadəsi, budanma formalarının öyrənilməsi nəticəsində məlum olmuşdur ki, bu bitkilər Abşeronun torpaq-iqlim şəraitinə yaxşı uyğunlaşır, perspektivlidir və landşaft dizaynında müxtəlif formalı kompozisiyaların tərtibatında geniş istifadə edilə bilər.

**Ədəbiyyat siyahısı**

1.Məmmədov T.S.(2010).Abşeronun ağac və kolları. Bakı: Elm və təhsil nəşriyyatı, 306
2.Səfərov İ.S., Əsədov K.S., Cəlilov Q.H. (1977).Yaşıllıq və sağlamlıq. Bakı: Gənclik, 3
3.Витвицкая М.Э. (2005). Современный дизайн участка. Москва: Лада, 200
4.Журнал «Ландшафтный дизайн» (2019) № 5, 53
5.Плотникова Л.С. (2011).Декоративные деревья, кустарники и лианы. Москва: Фитон, 5

# SARISU GÖLÜ ƏTRAFI FLORASINDA RAST GƏLİNƏN BƏZİ NÖVLƏRİN BİOEKOLOJİ XÜSUSİYYƏTLƏRİ

**QURBANOV ELŞAD MƏCNUN OĞLU**
Bakı Dövlət Universiteti,
Biologiya fakültəsi
*elshad_g@rambler.ru*
BAKI-AZƏRBAYCAN, Z.XƏLILOV-23, AZ 1148

**ABASOVA SƏYYARƏ NAZİM QIZI**
Bakı Dövlət Universiteti,
Biologiya fakültəsi
*abbasova.sayyara@mail.ru*
BAKI- AZƏRBAYCAN, Z.XƏLİLOV-23, AZ 1148

**XÜLASƏ**

Azərbaycan Respublikasında göllərin sahəsinə görə Xəzər dənizindən sonra ikinci yerdə duran Sarısu gölü İmişli, Sabirabad və Saatlı rayonları ərazisində Kür çayı sahili boyunca şimal-qərbdən cənub- şərqə doğru 22 km uzanan məsafədə yerləşir. Son illər baş verən qlobal ekoloji dəyişmələr və antropogen amillər Sarısu gölünün səviyyəsinin də dəyişməsinə səbəb olmuşdur. Bu da göl ətrafı ərazilərin flora və bitkiliyinə birbaşa öz təsirini göstərməkdədir. Aparılan tədqiqatlar zamanı göl ətrafından 200-dən artıq bitki nümunəsi toplanmış, təbii bitki örtüyündə fotoşəkillər çəkilmiş və GPS koordinatları müəyyən edilmişdir. Toplanmış bitki nümunələri herbariləşdirilmiş və flora konspekti tərtib olunmuşdur. Flora konspekti tərtib edilərkən, təyin olunan növlərin həyati formaları, fenofazaları, coğrafi və areal tipləri, ekoloji qrupları analiz edilmiş, o cümlədən bəzi növlərin bioekolji xüsusiyyətləri öyrənilmişdir. Flora konspekti tərtib edilərkən həmçinin ərazi florasında rast gəlinən növlərin fəsilə və cinslər üzrə paylanması da analiz edilmişdir. Analiz zamanı *Poaceae* Barnhart, *Cyperacea* Juss., *Ranunculaceae* Juss., *Asteraceae* Dumort. və *Typhaceae* Juss. fəsilələrinə daxil olan

növlərin daha çox üstünlük təşkil etdiyi aydın olmuşdur. Tədqiqat zamanı göl ətrafında rast gəlinən bitkilik tipləri də müəyyən edilmiş, məlum olmuşdur ki, gölün sahil boyu ərazisində əsasən rast gəlinən su- bataqlıq bitkilik tipi, bir formasiya və 4 assosasiya ilə təmsil olunur, Avstraliya qamışı (*Phragmites australis* (Cav.) Trin. ex Steud.) növü isə müəyyən olunan formasiyada dominantlıq təşkil edir. Tədqiqat zamanı ərazinin flora və bitkiliyində rast gəlinən bəzi növlərin bioekolji xüsusiyyətlərinin öyrənilməsi, qlobal-ekolji problemlərin, o cümlədən antropogen amillərin onlara necə təsir göstərməsi zərurətini ortaya çıxarır. Bu da gələcəkdə Sarısu gölündə, gölün yerləşdiyi ərazilər ətrafında, aparılacaq geobotaniki və ya fitosenoloji tədqiqatlar baxımından aktuallıq kəksb edir.

**ABSTRACT**

Sarisu Lake, which ranks second after the Caspian Sea in the area of lakes in the Republic of Azerbaijan, is located in the territory of Imishli, Sabirabad and Saatli districts along the Kura River coast at a distance of 22 km from the north-west to the south-east. Global ecological changes and anthropogenic factors that have occurred in recent years have caused the level of Sarisu Lake to change. This has a direct effect on the flora and vegetation of the areas around the lake. During the conducted research, more than 200 plant samples were collected from around the lake, photographs were taken of natural vegetation and GPS coordinates were determined. Collected plant samples were herbarium and a flora synopsis was drawn up. While compiling the flora synopsis, life forms, phenophases, geographical and areal types, ecological groups of the determined species were analyzed, including the bioecological characteristics of some species were studied. While compiling the flora synopsis, the distribution of the species found in the local flora by seasons and genera was also analyzed. During the analysis *Cyperacea Juss*., *Poaceae* Barnhart, *Ranunculaceae* Juss., *Asteraceae* Dumort. and *Typhaceae* Juss. it was clear that the species included in the families are more dominant. During the research, the types of vegetation found around the lake were also determined, and it was found that the wetland vegetation type found mainly in the coastal area of the lake is represented by one formation and 4 associations, Australian reed (*Phragmites australis* (Cav.) Trin. ex Steud.) type dominates the identified formation. Studying the bioecological characteristics of some species found in the fora and vegetation of the area during the research reveals the necessity of global-ecological problems, including how anthropogenic factors affect them. This makes it relevant in terms of geobotanical or phytocenological studies to be carried out in the future in Sarisu lake, around the areas where the lake is located.

Açar sözlər: antropogen, flora, formasiya, assosasiya, koordinat

## GİRİŞ

Bitki aləminin tarixi inkişafı prosesində xarici mühit amilləri xüsusi rol oynamışdır. Bu baxımda su və bataqlıq bitkilərinin formalaşması və inkişafında ekoloji amil kimi suyun da böyük təsiri vardır. Tarixən qədim növlər quru mühiti ilə əlaqəni tamamilə kəsmiş, əsl su bitkiləri olmuşdur. Lakin əsas inkişaf dövrünün suda keçirməsinə baxmayaraq bəzi bitkilər morfoloji quruluşunu dəyişərək quruda da yaşaya bilirlər. Öz flora və bitkiliyində belə növlərlə zəngin olan göllərdən biri Sarısu gölüdür.

İmişli, Sabirabad və Saatlı rayonları ərazisində Kür çayı sahili boyunca şimal-qərbdən cənub-şərqə doğru 22 km uzanan məsafədə yerləşən Sarısu gölü, Azərbaycan Respublikasında səthinin sahəsinə və həcmunə görə ən böyük göllərdən biri hesab olunur. Onu da qeyd etmək lazımdır ki, Sarısu gölü tədqiqat ərazisində bir-bir ilə əlaqəli dörd göldən biridir. Ümumiyyətlə, Sarısu gölü öz suyunu, Şərbətqobu vasitəsi ilə Ağ göldən, yeraltı və yağıntı sularından götürür. Kür və Araz şaylarının daşqın suları ilə qidalanan Sarısu gölünün həcminin artması, əsasən yaz və payız aylarında müşahidə olunur (Babayeva, 2004). Yaz və payız aylarında gölün həcminin artması ərazi ətrafında rast gəlinən bitki örtüyünə bir başa öz təsirini göstərir. Belə ki, daşqın zamanı əksərən düzən sahələrinin su altında qalması, sonradan suyun həcminin yenidən azalması, orada rast gəlinən bir sıra qiymətli növlərin sıradan çıxmasına, o cümlədən göl ətrafı müşahidə olunan bitkiliklərin növ tərkibibinin dəyişilməsinə səbəb olur. Tədqiqat ərzisində müşahidə olunan bu kimi hallar, iqlim dəyişkənlikləri, həmçinin antropogen amillər göl ətrafında rast gəlinən nadir, nəsli kəsilmək və itmə təhlükəsində olan növlərin də məhvinə gətirib çıxarır (Azərbaycan respublikasının "Qırmızı kitab"ı I, 2023). Sarsu göl ərazisinin flora və bitkiliyində mütəmadi olaraq baş verən belə dəyişkənliklər fitosenoloji tədqiqatların aparılma zərurətini bir daha sübut edir. Ərazidə əsasən su-btaqlıq bitkiliyinin üstünlük təşkil etdiyi

müşahidə olunur. Gölun ətrafında boz və boz-qıhvəyi torpaqlara daha çox rast gəlinir. Ərazi florasında taxılkimilər, cilkimilər, ciyənkimilər, qaymaqçiçəyikimilər və mürəkkəbçiçəklilər fəsiləsinə aid növlər birincilik təşkil etsə də, sugülükimilər, qırxbuğumkimilər, qurbağaotukilər, cıgkimilər, danaayağıkimilər, dodaqçiçəyikimilər fəsiləsinə aid növlər də say miqdarına görə ikinci yerdə durur. Qeyd olunan fəsilələrə aid növlər içərisində qida, yem, boyaq, dərman, bəzək və s. kimi xüsusiyyətlərə malik qiymətli bitkilər vardır ki, onların bioekoloji xüsusiyyətlərinin öyrənilməsi elmi-təcrübi baxımdan yüksək əhəmiyyətə malik olub, aktuallıq kəsb edir.

**TƏDQIQAT METODU**

Tədqiqatın materialı 2022-2024-cü illərdə Sarısu gölü ərazisində rast gəlinən bitki növəri olmuşdur. Tədqiqat zamanı Sarısu gölü ərazisinin flora və bitkilyində rast gəlinən növlərin flora kospekti tərtib edilmiş, bəzi növlərin bioekoloji xüsusiyyətləri öyrənilmiş, bitki birlikləri müəyyən ediləkən geobotaniki tədqiqatlar zamanı ümumqəbul edilmiş metodlardan istifadə edilmişdir ( Əsgərov, 2016; Qurbanov, Cabbarov, 2017; Полевая геоботаника, 1959-1979; Флора Азербайджана, 1950-1961).

**NƏTICƏ**

Sarısu gölü ərazisinin flora və bitkiliyində aparılan tədqitlar zamanı qaraqonur salaməleyküm (*Cyperus fuscus* L.), hamar salaməleyküm (*C.glaber* L.), lölə salaməleyküm (*C.longus* L.), iri salaməleyküm (*C.rotundusr* L.), qızılı salaməleyküm (C.esculentus L.) və s.; daryarpaq ciyən (*Typha angustifolia* L.), çoxvəchili qurbağaotu (*Sparganium erectum* L.) , qıyıqvari cığ (*Juncus subulatus* Forssk.), jerar cığı (*J.gerardii* Loisel.), sahil cığı (*J.litoralis* C.A.Mey.), iti cığ (*J.acutus* L.), qumral suçiçəyi *(Potamogeton criispus* L.), daraqvari suçiçəyi (*P.intramongolicus* Ma), buğumlu suçiçəyi *(P.nodosus* Poir.), budaqlı yulğun *(Tamarix ramosissima* Ledeb.), Hohenaker yulğunu *(T.hohenackeri* Bunge), şoran qaçançayır *(Aeluropus littoralis* (Gouan) Parl.), duzlaq asteri (*Tripolium pannonicum* (Jacq.) Dobrocz.), söyüdyarpaq ağlarot *(Lythrum salicaria* L.), iri pazotu *(Puccinellia giganthea* Grossh.), batdaq batdaqlıcası *(Eleocharis palustris* (L.) Roem. Et Scult ), su yarpızı *(Mentha aquatica* L.), quş qirxbuğumu (*Polygonum aviculare* L.) və s. kimi birillik, çoxillik və kökümsovlu bəzi növlərin biokoloji xüsusiyyətləri müəyyən edilmişdir. Eyni zamanda aparılan tədqiqatlar zamanı müxtəlif ədəbiyyat materiallarına istinadən, biokoloji xüsusiyyətləri müəyyən edilən növlərin təsərrüfat əhəmiyyətləri də öyrənilmişdir.

Tədqiqat zamanı bioekoloji xüsusiyyətləri öyrənilən növlərdən lölə salaməleyküm (*Cyperus longus* L.) çoxillik bitki olub, uzun köklərə malikdir. Şaxələnməyən açıq yaşıl rəngli düz gövdəsi, alabəzək yarpaqlarla örtülü olur. Yarpaqları xətvari, bir qədər də enliləşmiş formaya malik olaraq, kənarları kələ-kötür formadadır. İnkişaf etməmiş xırda yarpaqlar 2,3-3 mm uzunluqda olur. Çətirşəkilli çiçəkləri iri çiçək qrupunda toplanmışdır. Sünbülcüyü 3-10 ədəd olub, 5-15 mm uzunluğundadır. İyun ayından başlayaraq sentyabr ayına qıədər çiçəkləyir. Dairəvi, tərsinə yumurtaşəkilli fındıqca meyvəsi üçkünclüdür və 1,2-1,5 mm uzunluğundadır. *Cyperus longus*-un kökləri uzun aromatlıtəsirə malik, acı tamı vardır. Mətbəxlərdə ədviyyat kimi istifadə olunur.

Duzlaq asteri (*Tripolium pannonicum* (Jacq.) Dobrocz.) ikiillik bitki olub, yarpaqları xətvari və bir qədər də lətləşmiş haldadır. Çiçəkləri səbət çiçək qrupunda yerləşmişdir. Səbətin kənarında yerləşən çiçəkləri dilcikşəkilli, dişicikli olub, mavi və ya açıq-çəhrayı rəngdədir. Ortadakı çiçəkləri isə boruşəkilli quruluşdadır və ikicinslidir. Toxumcası uzunsovdur. Pappusu təşkil edən tükcükləri kələ-kötür formadadır. Tədqiqat ərazisində rast gəlinən bu növə eyni zamanda düzən və sahil qumluqlarında, şoran torpaqlarda və bəzən də əkin sahələrində rast gəlinir.

Daraqvari suçiçəyi (*P.intramongolicus* Ma) gövdəsi yuxarıdan budaqlanan çoxillik su bitkisidir. Sapşəkilli kökümsovları şaxələnmiş qurluşdadır. Yarpaqları tamamilə suyun içərisində olub, üzəri cod tüklərlə örtülmüşdür. 2-5 sm uzunluğunda xətvar quruluşa malik yarpaqları, uc hissəsindən iti və tək şaxəlidir. Üçbucaq şəklində, nazikdərili qılcıqları var. Dəstəşəklində olan çiçək qrupu, 5 sm uzunluğundadır. Bitki iyun ayında çiçək açır, iyun-iyul aylarında meyvə verir. Aypara şəklində olan meyvələri 3,5-5 mm uzunluğundadır.

Daraqvari suçiçəyi bitkisini yoğunlaşmış kökündən donuzlar üçün yem bitkisi kimi istifadə edilir, eyni zamanda quşlar üçün yem bazası sayılır. Həmçinin əhəmiyyətli yem bitkisi hesab olunan daraqvari suçiçəyindən kənd təsərrüfatında gübrə kimi istifadə edilir.

Buğumlu suçiçəyi (*Potamogeton nodosus* Poir.)güclü budaqlanan, uzun gövdəyə malik, çoxillik su bitkisidir. 10-30 sm uzunluğunda su altında olan yarpaqları neştərvari və xətvari formadadır. Bu yarpaqlar nazik və tez qırılandır. 20 sm suda üzən yarpaqları isəellipsşəkilli və ya neştərvari formaya malikdir. 2-6 sm uzunluğunda sünbülşəkilli çiçəkləri uzun çiçək yatağı üzərində yerləşir. Bitki iyun-iyul aylarında çiçəkləyir, iyul-avqust aylarında isə meyvə verir. Meyvələri fındıqca formasında olub, 2-2,5 mm uzunluğundadır. Onu da qeyd etmək lazımdır ki, buğumlu suçiçəyi nadir bitkilərdən olub, ondan bəzək bitkisi kimi istifadə edilir.

Quş qırxbuğumu (*Polygonum aviculare* L.) 15-40 sm uzunluğunda düz, əyilib qalxan və ya sürünən gövdəyə malik, birillik bitkidir. Ellipsşəkilli, oval vəya dairəvi yarpaqları, bəzən xətşəkilli formada olur. Diqqəti cəlb etməyən çiçəkləri ellipsşəkilli, kənarı bütöv xırda yarpaqlar arasında yerləşir. Çiçək yanlığı çiçək borusundan uzun olub, kənarları ağ vəya çəhrayı rənglidir. Çiçəkləmə dövrü may ayından başlayaraq oktyab ayına qədər davam edir. Əsasından dairəvi, üçbucaq formalı, adətən qara rəngli toxumları 2-3mm uzunluğundadır.

Quş qırxbuğumu farmokopeyaya daxil olan rəsmi dərman bitkisidir. O cülədən xalq təbabətində də geniş tətbiq edilir. Antioksidant, antihelmint, sidikqovucu, hərarətsalan, qansaxlayıcı, büzücü, şüalanmadan qoruyucu, iltihabi proseslərə qarşı və s. təsir qüvvəsinə malikdir. Əsasən bu bitkidən mədə və onikibarmaq bağırsaq xoraları, qanaxmalar, ağciyər vərəmi, böyrək, sidik kisəsi, qaraciyər və öd kisəsi, şişlər, babasil, podoqra, dizenteriya və malyariya zamanı istifadə olunur.

Azərbaycan Respublikasının göl və bataqlıq sahələrində yayılmış bitkilərin kifayət qədər ehtiyatı vardır. Belə ki, Azərbaycanın ən iri göllərindən biri hesab olunan Sarısu gölü buna bariz nümunədir. Burada rast gəlinən və bioekoloji xüsusiyyətləri müəyyən edilən növlər həm də sellüloza, lif, kağız istehsalı, tikinti materialı, ovçuluq təsərrüfatı və s. sahələr üçün əvəzedilməz xammal mənbəyidir. Belə zənginliyi qorumaq üçün Sarısu gölü və onun ətraf ərazilərində mütəmadi olaraq monitorinqlərin həyata keçirilməsi, floa və bitkiliyinin qorunması qarşıda duran məsələlərdən biri kimi diqqət mərkəzində olmalıdır.

**ƏDƏBIYYAT SIYAHISI**

1. Azərbaycan Respublikasının “Qırmızı Kitab”ı I (2023). Bakı/Imak, 1-502.
2. Babayeva A.M. (2004) Sarısu və Hacıqabul gölləri təbii rejim dövründə.-“Kür çökəkliyinin təbiəti və ekoloji problemləri”. “Nafta-Press” nəşriyyatı. Bakı, s 49-53.
3. Əsgərov A.M. (2016) Azərbaycanın bitki aləmi (Ali bitkilər-Embryophyta). Bakı/ TEAS Press. s.1-444
4. Qurbanov E.M., Cabbarov M.T. (2017) Geobotanika. Bakı: Bakı Universiteti. 320 s.
5. Полевая геоботаника (1959-1979). /Под ред. Б.М.Лавренко и А.А.Корчакина. тт. I-V. М.Л./ Наука.
6. Флора Азербайджана (1950-1961) т.I-VIII. Баку/ Изд-во АН Азерб. ССР.

# MÜXTƏLİF SÜD NÖVLƏRİNDƏN HAZIRLANMIŞ QATIĞIN KEYFİYYƏT GÖSTƏRİCİLƏRİ

**ZÜLFİYYƏ QULİYEVA**

Azərbaycan Dövlət İqtisad universiteti
Mühəndislik və tətbiqi elmlər/İstehlak mallarının ekspertizası və marketinqi
*quliyevazulfiyya75@gmail.com*
BAKI, AZƏRBAYCAN

**XÜLASƏ**

Tədqiqat işi inək südü, keçi südü, soya və kokos südündən əldə edilən süddən hazırlanmış qatığın üzərində aparılmışdır. Qatıq inək südü, keçi südü, soya və kokos südündən əldə edilən süddən hazırlanmışdır.Lactobacillus bulgaricus və Lactobacillus acidophilus mikroorqanizmlərindən istifadə edərək fermentasiya prosesi aparılmışdır. Əldə edilən nəticələr göstərdi ki, təzə süd nümunələrinin ilkin PH dəyəri bir qədər çoxdur.Beləki, inək südü 6.3, keçi südü 6.2, soya südü 6.4 və kokos südü isə 6.0 PH dəyərinə malik olmuşdur. İstehsalın ilk saatında müxtəlif südlərdən hazırlanmış qıcqırdılmış məhsulun PH nəticələri keçi südü üçün 5,24, inək südü üçün 5,85, soya südü 5,73 və kakos südü üçün isə 5,98 olmuşdur, lakin 72 saatdan sonra bütün süd nümunələri fermentasiya səbəbiylə daha çox turşuluğa meyllənmişdir və PH dəyəri daha aşağı olmuşdur. Bütün təzə süd nümunələri yüksək nəmliyə malik olmuşdur.Nəmlik faizləri 63,34% - 76,90% arasında dəyişmişdir. Yağ tərkibi isə 9,76% - 15,02% arasında olmuşdur. Kül faizi isə 0,52% - 0,96% aralığında olmuşdur. Keçi südü ən yüksək kül tərkibinə və kakos südü isə ən az kül tərkibinə malik idi. Soya südü, keçi südü, inək südü və kokos südünün xüsusi çəkiləri müvafiq olaraq 1,018, 1,030, 1,016 və 1,01 q/ml miqdarında olub. İstehsalın başlanğıc saatlarında dadı, rəngi, ağızda hissi və qoxusu məqbul sayılmışdır, lakin onların dəyəri otaq temperaturunda saxlandıqda azalmışdır. Bu araşdırma nəticəsində inək südü, keçi südü, soya və kakos südü arasında oxşar və fərqli olan xüsusiyyətlər,onların qidalılıq dəyəri,onlardan hazırlanmış qatıqların keyfiyyət və orqonoleptiki göstəriciləri aşkarlanmışdır. Göstərilən nəticələrdən bu qənaətə gəlmək olar ki, adı çəkilən südlər bir-birini əvəz edə bilər.

**AÇAR SÖZLƏR: Qatıq, süd, istehsal**

The research work was carried out on yogurt made from milk obtained from cow's milk, goat's milk, soy and coconut milk. Yogurt is made from cow's milk, goat's milk, soy and coconut milk. Fermentation process was carried out using Lactobacillus bulgaricus and Lactobacillus acidophilus microorganisms. The obtained results showed that the initial pH value of fresh milk samples is slightly higher. Thus, cow's milk had a pH value of 6.3, goat milk 6.2, soy milk 6.4 and coconut milk 6.0. In the first hour of production, the pH results of the fermented product made from different milks were 5.24 for goat milk, 5.85 for cow milk, 5.73 for soy milk and 5.98 for coconut milk, but after 72 hours, all milk samples showed higher pH due to fermentation. tended to be acidic and the PH value was lower. All fresh milk samples had high moisture content. Moisture content varied from 63.34% to 76.90%. The fat content was between 9.76% and 15.02%. The percentage of ash was in the range of 0.52% - 0.96%. Goat milk had the highest ash content and coconut milk had the lowest ash content. The specific gravities of soy milk, goat milk, cow milk and coconut milk were 1.018, 1.030, 1.016 and 1.01 g/ml, respectively. Taste, color, mouthfeel, and odor were considered acceptable during the initial hours of production, but their value decreased when stored at room temperature. As a result of this study, the similar and different characteristics of cow's milk, goat's milk, soy and coconut milk, their nutritional value, quality and organoleptic indicators of yogurt made from them were revealed. From the results shown, it can be concluded that the mentioned milks can replace each other.

**KEYWORDS: Yogurt, milk, production**

## GIRIŞ

Süd məməlilərin süd vəziləri tərəfindən ifraz olunan ağ rəngli mayedir. İnsan və digər yeni doğulmuş məməlilər bu dövr ərzində digər qida məhsullarını həzm edə bilmədikləri üçün süd ilə qidalanırlar. Erkən laktasiya südünün tərkibində mövcud olan maddələr ananın antitellərini körpəyə

daşıyır və körpədə bir çox xəstəliklərin yaranma riskini azaldır.Südün əsas kimyəvi komponentlərinə su, yağlar, zülallar, karbohidratlar, mineral maddələr, üzvi turşular, fermentlər və vitaminlər daxildir

Son zamanlarda südə bənzər məhsulların tədarükünü genişləndirmək məqsədi ilə, xüsusən də,süd çatışmazlığı olan ərazilərdə müxtəlif çeşiddə paxla əsaslı süd və süd məhsulları hazırlanır. Paxlalılar nisbətən ucuz qiymətli zülal mənbəyi olduğundan, paxlalılardan əldə olunan süd məhsullarının istehlakı protein çatışmazlığının azaldılmasına kömək edir.( Eteshola, E. və Oraedu,2010).

Qatıq yüksək qidalılıq dəyərinə və müalicəvi xüsusiyyətlərə malik turşudulmuş süd məhsuludur. Paxla əsaslı südlərin istehsalında əsas məqsəd məhsulların ömrünü uzatmaq, yeni çeşidlər yaratmaq,məhsulun qidalılıq dəyərini artırmaqdır. (Terna, G. və Musa A.,1998).Müxtəlif istehsalçılar tərəfindən artıq soya,noxud,kakos və lobyadan bəzi süd və turşudulmuş süd məhsulları hazırlanmışdır.

Tədqiqat işinin əsas məqsədi götürülmüş nümunələrin analizini aparmaq,məhsuldarlığını və qidalılıq dəyərini təyin etməkdən ibarətdir. Tədqiqat işində qatıq istehsalı üçün götürülmüş hər bir süd növünün yaralılığını təyin etmək üçün lazım olan sensor və PH analizlərinin aparılma prosesi izah edilmişdir. Bundan başqa,qatıq istehsalında soya, kakos,keçi və inək südünün istifadə imkanları araşdırılmışdır.( David, F.,1998).

**TƏDQIQAT METODU**

**a. Süd nümunələrinin toplanması**

Təzə inək südü Azərbaycanın müxtəlif bölgələrində yaşayan köçəri mal-qara çobanlarından əldə edilmişdir. Keçi südü isə Ağcabədi rayonunda yerləşən keçi fermasından əldə olunmuşdur.Toplanmış süd nümunələri steril şəkildə qablaşdırılmış şəkildə 2 litrlik qablarda anbarda saxlanılır,daha sonra nümunələr istifadə prosesinə qədərki mərhələ ərzində temperaturu $4^0$ C olan buzla doldurulmuş konteynerlərdə laboratoriyalara daşınır.(M.M.Əliyev və O.V.Əliyev,2005).

Soya paxlası və kakos yerli bazardan alınıb və əvvəlcədən uyğun temperaturda saxlanılıb.Daha sonra soya paxlası və kakos ideantifikasiya olunaraq çeşidi təyin edilmişdir.

**4.1.1. Soya südünün hazırlanması**

Soya paxlaları daşlardan və zədələnmiş, deformasiyaya uğramış toxumlardan təmizlənərək çeşidlənir. Soya paxlasının qabığını çıxarmaq və üyüdülməsini asanlaşdırmaq üçün 300 q soya 2 litr ilıq suda 6 saat isladılır. Soya qurudulur,içməli su ilə yuyulur və avtomatik təmizləyici-qarışdırıcı aparatda təxminən 500 ml su ilə üyüdülür. Yaranan məhlul təmiz parça ilə süzülür və əldə edilən ekstrakt 25 dəqiqə qaynadılır və sonra soyudulur.(Axundov S.M.,1976).

**4.1.2. Kakos südünün hazırlanması**

Kakos südü kakos bitkisinin qabıqlarının qırılaraq və küt bıçaqla təmizlənərək alınmış xammaldan hazırlanır. Əldə olunmuş xammal üyüdülür,yuyulur və 200 ml isti su içərisində 20 dəqiqə saxlanılır.Əldə olunan süd soyuducuda saxlanılır. (Əliyev M.M.2000).

Mayalama üçün Lactobacillus bulgaricus və Lactobacillus acidophilus mikroorqanizmlərindən istifadə olunur.

**4.2. Eksperimental qatıqların hazırlanması**

Təzə keçi,inək,soya və kakos südü xüsusi mikroorqanizmlər vasitəsilə mayalanaq qatıq məhsulu əldə olunmuşdur.Təzə süd təxminən $45^0$ C-yə qədər qızdırılır,süzülür və 15 q şəkər əlavə edilərək qarışdırılır. Süd nümunələri 95˚C-də pasterizə edilib və 30 dəqiqə saxlanılır sonra qapalı qabda və soyuq su hamamında 45˚C temperatura qədər soyudulur və 2,5 q maya əlavə edilərək qarışdırılır. Yarımfabrikat $45^0$ C temperaturda 3 saat saxlanılır və 1 gecə su hamamında soyudulur. Məhsul artıq qiymətləndirmə üçün hazır hesab olunur. (Belewu, M.A., Belewu, K.Y. və Bamidele, R.A.,2010)

Hər 4 qatıq nümunəsi xüsusi ekspertlər tərəfindən sensor qiymətləndirilmiş,hazır məhsulun üstün və çatışmayan cəhətləri qeyd edilmişdir. Nümunələrin dad, şirinlik, konsistensiya və qoxu kimi orqanoleptiki göstəriciləri qiymətləndirilmişdir. Məhsulun bu göstəriciləri 5 ballıq şkala ilə qiymətləndirilmişdir.

5.0 = Çox Yaxşı
4.9 - 4.0 = Yaxşı
3,9 - 3,0 = Kafi
2,9 - 2,0 = Zəif
1,9 - 1,0 = Pis

**NƏTICƏ**

Aparılmış tədqiqat nəticələrinə əsasən məlum olmuşdur ki,götürülmüş nümunələr arasında külün miqdarı 0.05%-0.96% arasında dəyişir. Külün miqdarı südün tərkibində olan mineral maddələrin miqdarından asılı olaraq dəyişir.Nəticələrdən məlum olmuşdur ki,keçi südünün tərkibində olan kül miqdarı (0.96%) digər nümunələr ilə müqayisədə daha yüksək,kakos südünün tərkibində (0.52%) isə daha aşağıdır. Buna səbəb olaraq ot yeyən heyvanların duz yalamasını göstərə bilərik.

Bütün nümunələr arasında nəmlik faizi 63.34-76.90 arasında dəyişmişdir.Ən yüksək nəmlik göstəricisi inək südündə,ən aşağı göstərici isə soya südündə izlənmişdir.Tədqiq olunan süd nümunələrinin nəmliyi standartlara uyğun olmuşdur.Südün tərkibində nəmliyin çox olması orada olan mikrobların inkişafı üçün əlverişli şəraitin yaranmasına səbəb olur və nəticədə südün saxlama müddəti azalır.

PH dəyərinin analizi zamanı soya südünün ən aşağı turşuluğa malik olduğu görünmüşdür.Bu nəticələrə əsasən demək olar ki, soya südü mədə xorası olan insanın qidası üçün daha məqsədəuyğundur.Soya südü stimullaşdırıcı əhəmiyyətə malikdir.Soya südündən çətin həzm,kolik ishal və dizenteriya xəstəliklərinin müalicəsində istifadə olunur.

Hazırlanmış qatıq nümunələrinin də PH dəyəri neytrala yaxındır.

**Cədvəl 1.** Müxtəlif süd nümunələrinin təxmini tərkibi

| Parametrlər | İnək südü | Keçi südü | Soya südü | Kakos südü |
|---|---|---|---|---|
| (%) Kül | 0.71 | 0.96 | 0.57 | 0.52 |
| (% ) Nəmlik | 76.90 | 73.00 | 63.34 | 65.00 |
| PH dəyəri | 6.3 | 6.2 | 6.4 | 6.0 |
| (%) Yağlılıq | 9.76 | 14.84 | 14.44 | 15.02 |
| (%) Xam zülal | 27.97 | 32.17 | 12.59 | 7.17 |
| Xüsusi çəki | 1.018 | 1.030 | 1.016 | 1.010 |

Süd nümunələrinin yağlılığı 9,76%-15,02% arasında dəyişib. Əvvəlki araşdırmalara görə, heyvan mənşəli süd nümunələrinin yağ tərkibi bitki mənşəli ilə müqayisədə daha yüksəkdir. Bu araşdırmanın nəticələri əvvəlki nəticələrlə uyğun gəlmir, çünki kakos südü 15,02% ilə ən çox yağlılığa malikdir, keçi südü 14,84% ilə ikinci yerdədir. Soya südünün yağ tərkibi 14,44% olub, inək südü isə 9,76% ilə ən az dəyərə sahib olmuşdur.Qidanın yağ tərkibinin zənginliyi enerji zənginliyi deməkdir.Deməli, kokos südü və keçi südü soya və inək südündən daha çox enerji verir. Keçi kimi heyvan mənşəli yağların tərkibində qan xolesterolunu yüksəltməkdə iştirak edən bəzi yüksək doymuş yağ turşuları vardır. Qanın tərkibində yüksək səviyyəli xolesterinin olması damarlarda bəzi yağ yataqlarının əmələ gəlməsinə səbəb ola bilər ki, bu da artroskleroz üçün ciddi bir əlamətdir. Bu əlamətlər zamanla infarka gətirib çıxara bilər.

Ümumi enerji dəyəri südün yağ tərkibindən asılıdır, buna görə daha yüksək yağ tərkibi daha çox ümumi enerji mənbəyidir. Kakos südü və soya südünün tərkibində də yağın miqdarının çox olması onlardan yağ əldə olunmasına şərait yaradır.

Süd nümunələrinin zülal tərkibi 7,17% - 32,17% arasında dəyişmişdir. Keçi südü 32,17% ilə ən yüksək zülal səviyyəsinə malik olmuşdur,ardından 27,97% ilə inək südü sonra 12,59% ilə soya südü və 7,17% ilə kokos südü yer almışdır.

Protein tərkibi Henry və digər bəzi müəlliflərin işi ilə uyğunluq təşkil edir.Əksər müəlliflər qeyd ediblər ki,xam zülal üçün bu çox aşağı bir dəyərdir.Bunun süd nümunələri ilə əlaqədar ola biləcəyi güman edilir.Onu da nəzərə almaq lazımdır ki, müəlliflərin əksəriyyəti təhlili quru süd nümunəsi üzərində aparmışdır. Bu məhsulların yüksək protein tərkibinə sahib olması yoxsul xalqların bəlasına çevrilmiş protein çatışmazlığını aradan qaldırmağa kömək edəcəyinə güman edilir.Keçi və inək südünün protein dəyərnin dəyişməsinə isə laktasiya dövrü birbaşa təsir edir.

Soya südü, həmçinin, bədənin böyüməsi və inkişafı üçün kifayət qədər əhəmiyyətli miqdarda proteini özündə saxlayır.Süd zülalı tam zülal sayılır, çünki tərkibində bədənimizin ehtiyac duyduğu bütün vacib amin turşularını saxlayır.Soya paxlasında və kakosda bir və ya bir neçə əsas amin turşusu yoxdur. Qadınlarda xəstəlik, stress, hamiləlik və südvermə dövrü kimi bəzi şərtləri bədənə böyük tələbat qoyur.

Bu zaman toxumalar zəifləyir və ya infeksiya ilə mübarizə aparır və bu dövrdə zülal istehlakının artırılması vacib şərt sayılır. Misal üçün,həzm zamanı zülallar amin turşularına parçalanır, bu da toxumaların böyüməsini sürətləndirir və bədəndə baş verən hər hansı mənfi dəyişikliyi aradan qaldırılmasında yüksək rol oynayır.Zülallar saç və dırnaqlardan tutmuş əzələlərə qədər bədən toxumalarını əmələ gətirən və bərpa edən güclü birləşmələrdir. Zülallar bədənin quruluşunu qorumaqla yanaşı , infeksiya ilə mübarizə aparır və oksigeni bədəndən nəql edir.

Süd nümunələrinin xüsusi çəkisi əsasən soya südü üçün 1,018 q/ml,keçi südü üçün 1,03 q/ml, inək südü üçün 1,016 q/ml və kokos südü üçün isə 1,01 q/ml olmuşdur.

Qatıq qıcqırdılmış süd məhsuludur, onun tipik dadı (turş dadı) laktik turşusunun əmələ gəlməsi ilə bağlıdır,həmçinin,fermentasiya yaradan orqanizmlər tərəfindən istehsal olunan karbohidratlardan,turşulardan, asetaldehid,sirkə turşusu və digər maddələrin miqdarından asılıdır. Südün tərkibində olan laktoza yəqin ki, bütün məhsulların şəkər tərkibinə təsir göstərmişdir. Tədqiqat zamanı, laxtalanma süd fermentasiyadan 4 saat sonra baş vermişdir, çünki süd məhsullarının pH səviyyəsinin aşağı düşdüyü aşkarlanmışdır.Etalon nümunə kimi yağsız süd götürülmüşdür. Tədqiq edilən süddən alınmış qatıq nümunələrinin qaymağının əmələ gəlmə müddəti də qeyd olunmuşdur. Bitki mənşəli (soya və kokos) südlərin qaymağı keçi və inək südü ilə müqayisədə daha az olmuşdur. Otaq temperaturunda südün saxlama müddəti 24 saat olsa da, götürülmüş nümunələrdə təxminən 27-30 saat olmuşdur. Çox güman ki, bu səbəbdən sənayedə süd məhsullarının saxlama müddətini uzatmaq üçün kimyəvi konservantlardan istifadə olunur.

Bütün süd məhsulu üçün xarakterik rəng,qoxu,xarici görünüş,konsistensiya və ağızda buraxdığı hiss məqbul qiymətləndirilir. Soya südü və kokos südü, qatıq istehsalının ilk saatında yüksək dərəcədə məqbul idi, lakin ətir,vizual görünüş və rəng üçün orta ballara sahib olmuşdur.Qatıq nümunələrinin homogenliyi məqsədəuyğun qiymətləndirilmişdir.

Nəticələr göstərdi ki, kakos və soya paxlasından hazırlanan süd uşaqlar üçün içki kimi istifadə edilə bilər. Bu,soya südü və kakos südünün istifadəsinin artırıla biləcəyini göstərir. Buna görə də,kakos və soya paxlasından daha çox südün istehsal olunması təklif olunur. Bu,xüsusilə, Afrikada və ümumilikdə dünyada protein-kalori çatışmazlığı problemini həll etmək üçün yaxşı çıxış yolu ola bilər.

**Cədvəl 2.** Süd nümunələrinin analizindən əldə olunan ballar

| Nümunələr | Rəng | Görünüş | Qoxu | Ağız hissi | Ümumi məqbulluq |
|---|---|---|---|---|---|
| Etalon nümunə | 4.1 | 4.3 | 5.0 | 4.8 | 4.6 |
| İnək südü | 4.0 | 4.2 | 4.8 | 4.6 | 4.3 |
| Keçi südü | 4.2 | 4.4 | 4.7 | 4.1 | 4.3 |
| Kakos südü | 3.4 | 3.7 | 4.2 | 3.9 | 3.8 |
| Soya südü | 3.6 | 3.8 | 4.2 | 4.3 | 4.0 |

**ƏDƏBIYYAT SIYAHISI**

1. Ajai, A.I., Ochigbo, S.S., Ndamitso, M.M. Və Ola, O.J. (2012) Minnada Müxtəlif Çiy Inək Südünün Yaxin Və Mineral Tərkibi. Avropa Tətbiqi Mühəndislik Və Elmi Tədqiqat Jurnalı, 1, 23-29.

2. Eteshola, E. Və Oraedu, A.C.I. (2010) Pələng Kök Yumrularinin (Cyperus Esculentus L.), Baobab Toxumlarinin (Adansonia Digitata L.) Və Onlarin Qarişiqlarinin Yağ Turşularinin Tərkibi. Amerika Neft Kimyaçilari Cəmiyyətinin Jurnali, 73, 255.

3. Chandan Rc (2011) Süd Inqrediyentlərinin Qidalandirici Və Sağlamliq Atributlari.In:Chandan Rc, Kilara A (Eds) Süd Tərkibi Qida Emali Üçün. Ames, Ia: Wiley-Blackwell Publishing, Səh. 387–419.

4. O'rell Kr, Chandan Rc (2013a) Qatiq: Meyvə Hazirliqlari Və Ətirli Materiallar. In: Chandan Rc, Kilara A(Eds) Manufacturing Yogurt And Fermented Milks. Çiçester, Qərbi Susseks: John Wiley, Səh. 195–216

5. Vedamuthu Er (2013b) Digər Fermentləşdirilmiş Və Mədəniyyət Tərkibli Südlər. In: Chandan Rc, Kilara A (Eds) Manufacturing Yogurt And Fermented Milks. Çiçester, Qərbi Susseks: John Wiley, Səh. 393-410.

# ОЦЕНКА УРОВНЯ ЭКСПРЕССИИ ГЕНА *GHNHX1* У ГЕНОТИПОВ ХЛОПЧАТНИКА В УСЛОВИЯХ СОЛЕВОГО СТРЕССА

**ШАДЕР АЛИЗАДЕ**
Бакинский Государственный Университет
Факультет Биологии
*shader622@mail.ru*
БАКУ, АЗЕРБАЙДЖАН

**КАМИЛА АЛИЕВА**
Бакинский Государственный Университет
Факультет Биологии
БАКУ, АЗЕРБАЙДЖАН

**ABSTRACT**

Cotton cultivation plays a vital role in supporting both industrial and agricultural economies. It serves as a major raw material for the textile industry and provides employment opportunities to millions of people. Salt stress is a major global environmental factor limiting cotton growth and yield. Identification of salt tolerance genes in cotton, as well as the study of molecular genetic mechanisms of salt tolerance, can help accelerate breeding programs in this direction. In this work, the relative expression level of the *GhNHX1* gene in 31 local and introduced cotton varieties belonging to *G. hirsutum* L. was studied under two different (100 mm and 200 mm) concentration of NaCl. Both an increase and a decrease in relative expression level were recorded in both salt-tolerant and salt-sensitive varieties.

**АННОТАЦИЯ**

Выращивание хлопчатника играет жизненно важную роль в поддержке как промышленной, так и аграрной экономики. Он служит основным сырьем для текстильной промышленности и обеспечивает возможности трудоустройства миллионам людей. Солевой стресс является основным глобальным экологическим фактором, ограничивающим рост и урожайность хлопчатника. Идентификация генов солеустойчивости хлопчатника, а также изучение молекулярно-генетических механизмов солеустойчивости могут помочь ускорить селекционные программы в этом направлении. В данной работе изучен относительный уровень экспрессии гена *GhNHX1* у 31 местного и интродуцированного сорта хлопчатника *G. hirsutum* L. при двух различных (100 мМ и 200 мМ) концентрациях NaCl. При оценке уровня экспрессии зафиксировано как повышение, так и снижение уровня экспрессии как у солеустойчивых, так и у солечувствительных сортов.

**КЛЮЧЕВЫЕ СЛОВА: хлопчатник, солевой стресс, *GhNHX1***

## ВВЕДЕНИЕ

Накопление $Na^+$ внутри вакуолей является основной стратегией, используемой многими растениями, чтобы избежать солевого стресса, за исключением некоторых видов галофитов, которые могут эффективно поддерживать поток $Na^+$ на очень низком уровне (Tester, 2003). У некоторых видов растений хранение $Na^+$ в вакуолях во время солевого стресса необходимо для устойчивого роста, в то время как другие виды растений имеют тенденцию ограничивать накопление $Na^+$ в побегах за счет уменьшения транспорта от корня к побегу и хранения $Na^+$ в вакуолях корневых клеток (Assaha, 2017).

У растений семейство генов NHX кодирует антипортеры $Na^+/H^+$, важные для солеустойчивости, гомеостаза калия и регуляции клеточного pH. Антипортеры $Na^+$, $K^+/H^+$ представляют собой $H^+$-сопряженные котранспортеры, которые транспортируют $Na^+$ или $K^+$ через мембрану в обмен на протоны ($H^+$) (Qiu 2012). Транспорт $Na^+$ и $K^+$ играет важную роль в гомеостазе pH, регуляции клеточного цикла и пролиферации клеток, солеустойчивости, росте и развитии. Гены NHX в основном используют два протонных насоса, образованных ферментом $H^+$-АТФ и $H^+$-PPase, для создания электрохимического градиента H для транспортировки $Na^+$ из

цитоплазмы в вакуоли или из клетки, тем самым поддерживая стабильность ионов $Na^+$ и предотвращая накопление $Na^+$ и токсическое воздействие на клетки.

Анализ транскриптомных данных и результаты анализа qRT-PCR показали, что *GhNHX* проявляет различную экспрессию в каждой ткани при разных концентрациях соли. По этой причине основной целью проведенных исследований является оценка уровня экспрессии гена *GhNHX* в генотипах хлопчатника в условиях стресса различных концентраций NaCl, а также сравнительный анализ изменения уровня транскриптов у устойчивых и чувствительных генотипов.

**МЕТОД ИССЛЕДОВАНИЯ**

Научно-исследовательская работа проводилась в отделе Технических и кормовых культур Института Генетических Ресурсов. В качестве материала исследования был использован 31 местный и интродуцированный генотип хлопчатника (*G.hirsutum* L.). Генотипы, высаженные в 5 повторах в пластиковые горшки, подвергались солевому стрессу в фазе перехода к основному листу, а через 72 часа после обработки стресса были взяты образцы листьев и собраны для молекулярно-генетического анализа. Раствор RNX-Plus (SinaClon, Cat/No.EX6101) был использован для экстракции РНК, а реагенты SinaClon first strand DNA (SinaClon, Cat/No.RT5201) был использован для синтеза кДНК. Нуклеотидные последовательности генов, кодирующих стресс-ассоциированный *GhNHX1* и экзогенный стабилизирующий фактор бета-тубулин, были выбраны из базы данных NCBI и был разработан праймер, затем был проведен анализ qRT-PCR для оценки относительного уровня транскриптов. Оценка относительного уровня экспрессии был проведен на основе метода, предложенного Пфаффлом (Pfaffl, 2001).

**РЕЗУЛЬТАТЫ**

В результате анализа установлено, что уровень экспрессии гена *GhNHX1* увеличился в 11 генотипах по сравнению с контролем и снизился в 20 генотипах при низкой концентрации соли. В условиях высокоплотного стресса уровень экспрессии изучаемого гена увеличивался в 14 генотипах и снижался в 17 генотипах.

В то же время в устойчивых (АП-317, Беязалтун-440, Наваи-9, Ташкент-2, Ташкент-3, Кыргызстан-174) и чувствительных (Гянджа-182, Каризма) генотипах, выявленных в наших предыдущих исследованиях (Alizade, 2023) на основании морфофизиологических показателей, широкая вариабельность наблюдалась также в изменении уровня транскриптов *GhNHX1*. Отсутствие абсолютной динамики внутри групп, отобранных по их устойчивости, свидетельствовало о том, что солеустойчивость имеет индивидуальный потенциальный уровень.

**СПИСОК ЛИТЕРАТУРЫ**

7. Alizade S., Mammadova R., Sirajli N. (2023). Evaluation of morphometric traits of upland cotton genotypes under different concentration of NaCl. Advances in Biology & Earth Sciences, 8(3):301-307.

8. Assaha D. V. M., Ueda A., Saneoka H., Al-Yahyai R., Yaish M. W. (2017). The Role of $Na^+$ and $K^+$ Transporters in Salt Stress Adaptation in Glycophytes. Frontiers in physiology, 8(1):1-19.

9. Pfaffl M.W. (2001). A new mathematical model for relative quantification in real-time RT–PCR. Nucleic acids research, 29(9):1-6.

10.Qiu Q.S. (2012). Plant and yeast NHX antiporters: roles in membrane trafficking. Journal of integrative plant biology, 54(2):66-72.

11.Tester, M. & Davenport R. (2003). $Na^+$ Tolerance and $Na^+$ Transport in Higher Plants. Annals of botany, 91(5): 503–527.

# ZİRİNC BİTKİSİNİN GENERATİV ORQANLARININ BİOKİMYƏVİ XASSƏLƏRİNİN TƏDQİQİ

**ELYANƏ ƏLİYEVA, MALİK QƏBİLOV, ŞƏHLA ƏLƏKBƏROVA**

Azərbaycan Dövlət Aqrar Universiteti
Biologiya
*shahla.alakbarova.551@gmail.com*
GƏNCƏ, AZƏRBAYCAN

**XÜLASƏ**

Dərman bitkiləri xəstəliklərin qarşısını almaq və ya müalicə etmək üçün orqanizmin fizioloji və ya patoloji mexanizmlərini dəyişdirə bilərlər. *Berberis vulgaris* və ondan dərman bitkisi kimi, meyvəsindən isə qida əlavəsi kimi geniş istifadə olunan müxtəlif ölkələrdə yayılmış kol bitkisidir. Bu bitkinin müxtəlif hissələri, o cümlədən gövdəsi, kökləri, meyvələri və yarpaqları bir sıra ölkələrdə ənənəvi tibbdə geniş istifadə edilir. Ənənəvi təbabətdə bu bitkidən böyrək daşlarının və sidik yollarının xəstəliklərinin, mədə-bağırsaq, qaraciyər və öd kisəsi xəstəliklərinin təmizlənməsi, həmçinin qan dövranı sisteminin stimullaşdırılması daxil olmaqla bir neçə məqsədlə istifadə olunur. Bioloji aktiv maddələr aşağı qatılıqlarda canlı orqanizmlərin müəyyən qruplarına (ilk növbədə insanlara, həm də bitkilərə, heyvanlara, göbələklərə və s. münasibətdə) yüksək fizioloji aktivliyə malik olan kimyəvi maddələrdir. Maddələrin fizioloji aktivliyi həm onların tibbi istifadə imkanları baxımından, həm də insan orqanizminin normal fəaliyyətinin təmin edilməsi və ya bir qrup orqanizmə xüsusi əhəmiyyət verilməsi baxımından nəzərdən keçirilə bilər. Gəncə və Göygöl ərazilərindən toplanan zirinc bitkisinin meyvələrində ekstraksiya müddətindən asılı olaraq fenol birləşmələrin dinamikasının müqayisəli öyrənilməsidir. Tədqiqatın metodologiyası – ekstraksiyalar Sokslet cihazı ilə alınmışdır, fenol birləşmələr Folin-Ciocalteau tərəfindən təklf edilmiş üsul ilə öyrənilmişdir. Fenol birləşmələrin maksimal səviyyədə olduğu zirinc ekstraksiyalarında təbabətdə və əczaçılıqda istifadə edilə bilər**.** Zirinc meyvələrinin 10 və 50 dəqiqə ekstraksiyasına nisbətən, 30 dəqiqə müddətində ekstraksiya zamanı fenol birləşmələrin müəyyən dərəcədə daha çox olduğu aşkarlanmışdır. Qərb bölgəsində yetişən yabanı zirinc bitkisinin fenol birləşmələrinin müqayisəli tədqiqi aparılmış və ekstraksiya müddətinin fenol maddələrin ifraz olunması ilə düz mütənasib olduğu aşkarlanmışdır.

Medicinal plants can modify the physiological or pathological mechanisms of the body to prevent or treat diseases. Berberis vulgaris is a bush plant widely used in different countries as a medicinal plant and its fruit as a food supplement. Various parts of this plant, including the stem, roots, fruits and leaves, are widely used in traditional medicine in several countries. In traditional medicine, this plant is used for several purposes, including the treatment of kidney stones and urinary tract diseases, gastrointestinal, liver and gall bladder diseases, as well as stimulating the circulatory system. A comparative study of the dynamics of the content of phenolic compounds depending on the extraction time in the fruits of the zinrin plant collected in the Ganja and Goygol regions is presented. Research methodology - extracts were obtained using a Soxhlet apparatus, phenolic compounds were studied using the method proposed by Folin-Ciocalto. Barberry extracts with the maximum content of phenolic compounds can be used in medicine and pharmacy. Compared with the 10- and 50-minute extraction of gooseberries, the content of phenolic compounds was higher in the 30-minute extraction. A comparative study of phenolic compounds of the wild barberry plant growing in the western region was carried out, and it was found that the extraction time is directly proportional to the release of phenolic substances.

**AÇAR SÖZLƏR: bioloji aktiv maddələr, dərman bitkiləri, zirinc**
**KEYWORDS: biologically active substances, medicinal plants, barberry**

## GİRİŞ

Dərman bitkiləri xəstəliklərin qarşısını almaq və ya müalicə etmək üçün orqanizmin fizioloji və ya patoloji mexanizmlərini dəyişdirə bilərlər. Bu bitkilər qədim dövrlərdən tibbi məqsədlər üçün geniş istifadə edilmişdir. Hal-hazırda, kimyəvi dərmanlarla müqayisədə asan əlçatanlılıq, aşağı qiymət və

daha az yan təsirlərə malik olmaları səbəbi ilə, dərman bitkilərin istifadəçilərinin sayı kəskin artmışdır (Qurbanov, 2009). Meyvə bitkilərinin becərilməsi hər bir xalqın çiçəklənməsində mühüm rol oynayır. Onlar bir çox ölkədə mühüm ixrac məhsuludur. Azərbaycanda da ümumi kənd təsərrüfatı istehsalının mühüm hissəsini meyvələr təşkil edir və 100-dən çox meyvə növü yetişdirmək imkanına malik ölkədə əsasən mülayim meyvələr, o cümlədən bəzi subtropik və hətta tropik meyvələr də var (Əsgərov 2016). Ölkədə mədəni meyvələrlə yanaşı, yabanı yeməli meyvələrin də çoxsaylı təbii populyasiyaları var. Yabanı yeməli meyvələr dünyanın bəzi kənd yerlərində zəif inkişaf şəraitində yetişdirilir və insanların sağlamlığı və rifahı üçün vacib olan fitokimyəvi maddələrin əsas mənbəyi kimi xüsusi xüsusiyyətlərinə görə hazırda böyük əhəmiyyət kəsb edir. Dərman bitkiləri xəstəliklərin qarşısını almaq və ya müalicə etmək üçün orqanizmin fizioloji və ya patoloji mexanizmlərini dəyişdirə bilərlər. Bu bitkilər qədim dövrlərdən tibbi məqsədlər üçün geniş istifadə edilmişdir. Hal-hazırda, kimyəvi dərmanlarla müqayisədə asan əlçatanlılıq, aşağı qiymət və daha az yan təsirlərə malik olmaları səbəbi ilə, dərman bitkilərin istifadəçilərinin sayı kəskin artmışdır (Skrovankova və b. 2015). *Berberis vulgaris* və ondan dərman bitkisi kimi, meyvəsindən isə qida əlavəsi kimi geniş istifadə olunan müxtəlif ölkələrdə yayılmış kol bitkisidir. Hündürlüyü 1-3 metr olan bu kol bitkisi tikanlı sarı qabığı və yumurtavari yarpaqları, həmçinin salxımvari sarı çiçəklərə malikdir bunlar isə nəticədə uzunluğu 7 ilə 10 mm və eni 3 ilə 15 mm arasında olan qırmızımtıl meyvələrə çevrilirlər. Zirinc, əsasən dünyanın mülayim və subtropik bölgələrinə aid olan təxminən 450-500 növdən ibarət böyük bir cinsdir. *Berberis vulgaris*, ən məşhur növdür və dünyanın təbii zirinc istehsalında üstünlük təşkil edir. *B. vulgaris* meyvəsi 5-15 mm uzunluğunda kiçik giləmeyvədir, yetişdikdə qırmızı və ya tünd göy rəngə çevrilir, tez-tez səthində çəhrayı və ya bənövşəyi mum örtüklü olur; bəzi növlərdə uzun və ya dar ola bilər, digər növlərdə isə sferikdir. Zirinc bitkisinin meyvələri yazın sonunda və payızda yetişir. Bitkinin meyvəsi qida əlavəsi kimi istifadə edilir. Onların turş dadı olur və antosiyaninlər, fenolik birləşmələr, limon turşusu və C vitamini ilə zəngindirlər (Sonmezdag A.S. və b. 2018). Antosiyaninlər - aqlikon kimi antosiyanidinləri ehtiva edən rəngli bitki qlikozidləri - flavonoidlərlə əlaqəli əvəzlənmiş 2-fenilxromanlar. Antosiyaninlər fenilpropanoid yolu ilə sintez olunan flavonoidlər adlanan molekulların ana sinfinə aiddir. Onlar ali bitkilərin bütün toxumalarında, o cümlədən yarpaqlarda, gövdələrdə, köklərdə, çiçəklərdə və meyvələrdə olur (Pantelidis, G.E. və b. 2007). Sadalanan bioloji aktiv maddələrin xüsusiyətlərinə görə də, qiymətli birləşmələrin çıxarılması üçün istifadə edilən üsulların, minimum əlavə və zərərləri olan əksər funksional materialların əldə edilməsi vacibdir. Bu bitkiyə Amerikanın şimalı və mərkəzində, cənubi Avropa, həmçinin Asiyanın cənubu kimi bölgələrdə təbii formada rast gəlinir. Bu bitkinin müxtəlif hissələri, o cümlədən gövdəsi, kökləri, meyvələri və yarpaqları bir sıra ölkələrdə ənənəvi tibbdə geniş istifadə edilir. Ənənəvi təbabətdə bu bitkidən (cədvəl 1) böyrək daşlarının və sidik yollarının xəstəliklərinin, mədə-bağırsaq, qaraciyər və öd kisəsi xəstəliklərinin təmizlənməsi, həmçinin qan dövranı sisteminin stimullaşdırılması daxil olmaqla bir neçə məqsədlə istifadə olunur (Bhardwaj D., Kaushik N. 2012)

***Cədvəl 1.*** *Zirinc bitkisinin bəzi ənənəvi istifadə sahələri*

| Orqanlar sistemi | Təsiri | Bitkinin orqanı | İstifadə üsulu |
|---|---|---|---|
| Ürək-damar | Antihipertenziv | Qurudulmuş yarpaqlar | İnyeksiyası |
| | Şişkinlik əleyhinə | Kök qabığı | Qaynadılmış |
| | Varikoz damarlar | Kök | Qaynadılmış |
| Endokrin | Dismenoreya | Meyvəsi | Su ekstraktı |
| | Menorragia | Qurudulmuş Kök | Su ekstraktı |
| İmmunitet | İltihab əleyhinə | Qurudulmuş kök | Qaynadılmış |
| | Revmatoid artrit | Qurudulmuş kök qabığı+gövdə qabığı | Qaynadılmış |
| | Podaqra | Çiçəyi | Qaynadılır |
| Mərkəzi sinir sistemi | Qızdırmanı azaldır | Quru meyvələr | Sulu ekstrakt |
| | Sakitləşdirici | Qurudulmuş kök | Qaynadılır |
| | Sidikqovucu | Qurudulmuş kök | Qaynadılmış |

| | | | |
|---|---|---|---|
| Böyrək | Böyrək iltihabı | Qurudulmuş kök | Qaynadılır |
| | Nefrit | Qurudulmuş kök qabığı | Qaynadılmış |
| Mədə-bağırsaq | Bağırsaq hərəkəti | Qurudulmuş kök qabığı | Qaynadılır |
| | Qaraciyər və öd kisəsi xəstəlikləri | Qurudulmuş kök qabığı | Qaynadılır |
| | Bağırsaq xoraları | Kök | Qaynadılır |
| | Hepatit | Qurudulmuş kök qabığı | Qaynadılır |

Geniş tətbiqlərə və çoxsaylı tədqiqatlara baxmayaraq, bitkinin təsir edici maddələrin əksəriyyətinin təsir mexanizmi tam aydın deyil. Bir sıra dərman bitkiləri, məsələn qızılgül, bamya, albalı, dəfnə, portağal kimi meyvələrin fiziki, mexaniki və qidalılıq xüsusiyyətləri ilə bağlı bir çox araşdırmalar aparılmışdır. Lakin ədəbiyyatda zirinc təzə meyvələrinin morfo-fizioloji və biokimyəvi xüsusiyyətləri ilə bağlı ətraflı tədqiqata az rast gəlinmişdir (Sharifi A., və b. 2013).

**TƏDQİQAT METODU**

Bioloji aktiv maddələr aşağı qatılıqlarda canlı orqanizmlərin müəyyən qruplarına (ilk növbədə insanlara, həm də bitkilərə, heyvanlara, göbələklərə və s. münasibətdə) yüksək fizioloji aktivliyə malik olan kimyəvi maddələrdir. Maddələrin fizioloji aktivliyi həm onların tibbi istifadə imkanları baxımından, həm də insan orqanizminin normal fəaliyyətinin təmin edilməsi və ya bir qrup orqanizmə xüsusi əhəmiyyət verilməsi baxımından nəzərdən keçirilə bilər.

Bioloji aktiv maddələr fermentlər, hormonlar, vitaminlər, antibiotiklər, böyümə stimulyatorları (auksinlər, gibberellinlər, sitokininlər), herbisidlər, insektisidlər, biogen stimulyatorlar (tərkibində bəzi dikarboksilik və humik turşular, arginin, ammonyak, mikroelementlər), prostaqlandinlər, neyrotransmitterlər, pirogenlər və s. hesab edilir. Fenolik birləşmələrə maraq təsadüfi deyil, bu, onların bioloji aktivliyinin geniş diapazonu və aşağı toksikliyi (fenolun özündən başqa) ilə izah edilə bilər. Tədqiqat obyekti olaraq sırf zirin bitkisinin meyvələri seçilmişdir.

Tədqiqat üçün istifadə olunan zirinc meyvələri 2023-cü ildə Gəncə şəhərinin və Göygöl rayonunun bir sıra kəndlərindən toplanmış və bütün yad maddələrdən adi kran suyu ilə təmizlənmişdir. Sonda, ümumi 1 kq zirinc meyvəsi əldə edilib. Bütün tədqiqat materialı iki gün ərzində otaq temperatur rejimində saxlanılmışdır. Hər bir təcrübə ADAU-nun Biologiya kafedrasının nəzdində fəaliyyət göstərən laboratoriyalarda aparılmışdır.

Zirinc bitkisinin meyvələri qurutma sobasına $95^0$C temperatur rejimində qurudulmuşdur. Ümumi fenol tərkibi Folin-Kiocalteau üsulu ilə müəyyən edilmişdir (Pantelidis G.E. və b. 2007). 0,5 ml ekstrakt 2,5 ml Folin-Ciocalteau reagenti (1:10 nisbətində əvvəlcədən seyrəldilmiş) ilə qarışdırılıb və otaq temperaturunda 4 dəqiqə saxlanılır. Alınan qarışığa 2 ml natrium bikarbonat (75 q/l) əlavə edilir. Otaq temperaturunda 35 dəqiqə saxladıqdan sonra absorbsiya etmə xüsusiyyəti spektrofotometrdən istifadə etməklə 765 nm dalğa uzunluğunda ölçülmə prosesi aparılmışdır. Nəticələr mq qallik turşusu ekvivalentləri (GAE)/g kimi ifadə edilmişdir (Pereira və b. 2017). Bütün təcrübələr iki dəfə təkrarda aparılmışdır.

Meyvələr bioaktiv birləşmələrin əhəmiyyətli dərəcədə zəngin mənbəyidir. Bu birləşmələr həm də funksional qida maddələri kimi tədqiqatçıların böyük marağına səbəb olub. Cədvəl 1-də 2023-cü ildə müxtəlif ərazilərdən toplanmış zirinc ekstraktında ekstraksiya müddətinin ümumi fenolik tərkibinə təsiri göstərilir. Nəticələr göstərir ki, hər iki nümunədə ekstraksiya vaxtının ümumi fenolik tərkibinə əhəmiyyətli təsiri yoxdur. Dispersiya təhlili göstərir ki, yalnız temperaturun kvadratik ifadələri və xətti ifadələr ümumi fenolik tərkibinin miqdarına əhəmiyyətli təsir göstərir. Buna baxmayaraq, xətti və kvadratik ifadələrin təsiri ilə bağlı ifadələr, eləcə də temperatur və zamanın qarşılıqlı təsiri ifadələri sintezinin miqdarına əhəmiyyətli təsir göstərməmişdir.

***Cədvəl 2.*** *Ekstraksiya müddətindən asılı olaraq fenol birləşmələrin dinamikası (2023-cü il, q/kq).*

| **Müddət (dəqiqə)** | **10** | | **30** | | **50** | |
|---|---|---|---|---|---|---|
| **Nümunənin toplandığı ərazi** | **Gəncə** | **Göygöl** | **Gəncə** | **Göygöl** | **Gəncə** | **Göygöl** |
| **Fenol birləşmələr** | | | | | | |
| Qalik turşusu | 0,028 | 0,032 | 0,085 | 0,079 | 1,109 | 1,100 |
| Kofein turşusu | 0,551 | 0,484 | 1,067 | 1,037 | 1,833 | 1,813 |
| Xlorogen turşusu | 50,664 | 50,623 | 62,990 | 65,001 | 100,537 | 100,491 |
| Kumarin | 0,799 | 1,001 | 2,228 | 2,190 | 2,861 | 2,863 |
| Ferul turşusu | 0,339 | 0,401 | 0,988 | 1,002 | 2,574 | 2,670 |
| Rutin | 0,063 | 0,048 | 0,281 | 0,301 | 1,707 | 1,703 |
| Hiperozid | 0,725 | 0,717 | 8,999 | 9,107 | 10,366 | 10,323 |
| Luteolin | 1,183 | 1,209 | 1,101 | 1,003 | 0,055 | 0,101 |

***Mənbə*** *( Cədvəl tədqiqatçılar tərəfindən tərtib edilmişdir)*

Cədvəl 2-də 2023-cü ildə Gəncə və Göygöl ərazilərindən toplanmış zirinc bitkisinin meyvələrindən alınmış, ekstraktda ekstraksiya müddətinin ümumi fenolik tərkibinə təsiri göstərilir. Nəticələr göstərir ki, hər iki nümunədə lakin ekstraksiya vaxtının ümumi fenolik tərkibinə əhəmiyyətli təsiri yoxdur. Cədvəldə göründüyü kimi, hər iki ərazidən toplanan, zirinc bitkisinin meyvələrində fenol birləşmələrin miqdarı ekstraksiya müddəti çoxaldıqca artır. Burada yalnız luteolin maddəsinin miqdarında müəyyən azalma müşahidə edilir, beləki, müddət 10 dəqiqə olduqda bu göstərici Gəncə nümunələrində 1,183 q/ka, Göygöl nümunəsində 1,209 q/kq olmasına baxmayaraq 50 dəqiqə müddətində bu göstərici müvafiq olaraq 0,055 və 0,101 q/kq bərabər olmuşdur. Həmçinin xlorogen turşusunun miqdarının ekstraksiya müddəti artdıqca digər göstəricilərə nisbətən daha çox artmışdır. Belə ki, 10 dəqiqə müddətində ekstraksiya olunan meyvələrdən Gəncədən toplanan nümunələrdə bu göstərici 50,664, Göygöldən toplananlarda isə 50,623 olmasına baxmayaraq 1 saata yaxın ekstraksiya edilənlərdə bu göstərici müvafiq olaraq 100,537 və 100,491 q/ka bərabər olmuşdur. Gəncə və Göygöl rayonlarından toplanmış zirinc meyvələrinin orta meyvə çəkisi, sellüloz nisbəti və DS (həll olunan bərk maddələrin tərkibi) qiymətləri 0,102 q-dan 0,342 q-a qədər; müvafiq olaraq 60,81%-dən 75,41%-ə və 16,95%-dən 20,85%-ə qədərdir. Nümunələr 2281 ilə 3462 mq/l arasında dəyişən ümumi fenolik tərkibini göstərdi. Nəticələr göstərdi ki, zirincin ümumi fenolik tərkibi genotipdən daha çox asılıdır. Bütün bu araşdırmalar göstərir ki, ölkənin müxtəlif yerlərində yetişdirilən zirinc meyvələri meyvə çəkisinə görə fərqlənir. Bu dəyişkənlik müxtəlif böyümə şəraiti, genetik mənşəyi, iqlimi, coğrafiyası, mədəni tətbiqi və yetişmə mərhələsi ilə bağlı ola bilər. Artan temperaturun meyvələrdə olan, subkritik sudan istifadə edərək fenolik birləşmələrin çıxarılmasına müsbət təsiri bir çox tədqiqatçılar tərəfindən bildirilmişdir. Daha yüksək temperaturlar suyun polaritesinin azalmasına səbəb olur, beləliklə, suyun polifenollar kimi qeyri-polyar birləşmələri həll etmək qabiliyyətini artırır. Həmçinin məlumdur ki, temperaturun artması suyun yapışma xüsusiyyətini və özlülüyünü azaldır ki, bu da öz növbəsində ekstraksiya prosesi zamanı diffuziya sürətinin və kütlə ötürülməsinin artmasına səbəb ola bilər. Daha yüksək temperaturda ümumi fenolik tərkibin daha yüksək ekstraksiya səmərəliliyinin başqa bir səbəbi yüksək temperaturda polisaxarid şəbəkəsinin və hüceyrə divarının liqninin hidrolitik deqradasiyası ola bilər ( Bhardwaj D., Kaushik N. 2012). Fenol karboksilik turşular, o cümlədən qallik, kofein və s. turşuları bitkilərdə, xüsusən də taninlərin tərkib hissəsi kimi geniş yayılmışdır. Turşuların əksəriyyəti C6-C1 strukturunun fenolik birləşmələrinə aiddir, bitki toxumalarında bağlanmış formada olur və hidrolizdən sonra ayrılır. Qalik turşusu özünü kondensasiya etməyə qadirdir və depsidlər (esterlər) əmələ gətirə bilir. Yüksək bioloji aktivlik, antiseptik və keratolitik xüsusiyyətlər hidroksisinnamik turşuların bütün nümayəndələri üçün xarakterikdir. Orqanizmə tonik, immunostimulyasiya edən, iltihabəleyhinə, ödqovucu, antiallergik, vazodilatator və antioksidant təsir göstərirlər. Kofein və xlorogen turşular sinnamik turşuların ən parlaq nümayəndələridir. Kofein turşusunun özəlliyi onun efirlər əmələ gətirmə qabiliyyətidir. Təhlil edilən zirinc nümunələri müqayisə edilən kofein turşusunun məzmunu ədəbi məlumatlara uyğundur (Skrovankova, S. və b. 2015).

**NƏTİCƏ**

Aparılan tədqiqat nəticəsində əldə edilmiş nəticələr onu göstərdi ki, zirincin ümumi fenolik tərkibi genotipdən daha çox asılıdır. Bütün bu araşdırmalar göstərir ki, ölkənin müxtəlif yerlərində yetişdirilən zirinc meyvələri meyvə çəkisinə görə fərqlənir. Bu dəyişkənlik müxtəlif böyümə şəraiti, genetik mənşəyi, iqlimi, coğrafiyası, mədəni tətbiqi və yetişmə mərhələsi ilə bağlı ola bilər.

**ƏDƏBİYYAT SİYAHISI**

1. Elşad Qurbanov. (2009) Ali bitkilərin sistematikası. Bakı: Bakı Dövlət Universiteti, "Bakı Universiteti" nəşriyyatı.. səh. 154.
2. Əsgərov A. (2016) Azərbaycanın bitki örtüyü. Bakı: Elm,446 s
3. Skrovankova, S., Sumczynski, D., Mlcek, J., Jurikova, T., Sochor, J. (2015) Bioactive compounds and antioxidant activity in different types of berries. International Journal of Molecular Sciences, 16(10): 24673-24706.
4. Sonmezdag, A.S., Kelebek, H., Selli, S. (2018) Volatile and key odourant compounds of Turkish Berberis crataegina fruit using GC-MS Olfactometry. Natural Product Research, 32(7): 777-781.
5. Pantelidis, G.E., Vasilakakis, M., Manganaris, G.A., Diamantidis. G. ( 2007) Antioxidant capacity, phenol, anthocyanin and ascorbic acid contents in raspberries, blackberries, red currants, gooseberries and Cornelian cherries. Food Chemistry, 102(3): 777-783
6. Bhardwaj D., Kaushik N. (2012) Phytochemical and pharmacological studies in genus Berberis. Phytochemistry Reviews. 11(4):523–542. doi: 10.1007/s11101-013-9272-x.

# TRAMİNER ÜZÜM SORTUNUN MEXANİKİ, KİMYƏVİ XÜSUSİYYƏTİNİN YÜK NORMASINDAN VƏ MƏHSULDARLIQDAN ASILILIĞININ ÖYRƏNİLMƏSİ

**AZƏR ŞÜKÜROV**
Üzümçülük və Şərabçılıq ETİ
Üzümün aqrotexnikası şöbəsi
*azeraz@mail.ru*
ABŞERON, AZƏRBAYCAN

**MÖVLUD HÜSEYNOV**
Üzümçülük və Şərabçılıq ETİ
Üzümün emalı və şərabın texnologiyası şöbəsi
*movludh@mail.ru*
ABŞERON, AZƏRBAYCAN

**LALƏ SÜLEYMANOVA**
Üzümçülük və Şərabçılıq ETİ
Üzümün arqotexnikası şöbəsi
*lalesuleymanova561@gmail.com*
ABŞERON, AZƏRBAYCAN

**XÜLASƏ**

Məqalədə Traminer üzüm sortunun mexaniki və kimyəvi xüsusiyyətləri öyrənilmişdir. Müəyyən edilmişdir ki, Traminer üzüm sortunda bir tənəkdə salxımların miqdarı 19-24, bir salxımın kütləsi 80-110 qr, şirədə şəkərlilik 5,5 q/100 $sm^3$ və titirlənən turşuluq 21,2 q/$dm^3$ olmuşdur. Bu sortun mexaniki və kimyəvi xüsusiyyətlərinin öyrənilməsi, onlardan alınan məhsulun istifadə istiqamətində, istehlak olunmasında, yüksək məhsul götürülməsində əsas məsələlərdən biridir.

**AÇAR SÖZLƏR:** sort, salxim, tərkib
**KEY WORDS:** variety, bunch, composition

## GIRIŞ

Son zamanlar Respublikamızın müxtəlif bölgələrində əkilib becərilən introduksiya olunmuş üzüm sortlarının əkin sahələri genişləndirilmiş və onlardan yüksək keyfiyyətli süfrə şərablarının hazırlanmasına diqqət yetirilir (Гусейнов,Майбородин,Манацков,2019). Bu bölgələrdə yetişdirilən Avropa sortlarının yerli şəraitə uyğunluğu və bu sortların becərmə texnologiyalarının optimal yük normalarının, eləcə də alınan məhsulun kəmiyyət və keyfiyyət göstəricilərinə təsiri az öyrənilmişdir (Dölek,Atlı,Keskin,2020). Səlimov

Bu baxımdan Qəbələ, Şabran və digər bölgələrimizdə əkilib, becərilən Traminer üzüm sortunda saxlanılan yük normasının şərabın mexaniki göstəricilərinə təsiri müəyyən edilib. Bu sortlar Azərbaycanda Qəbələ şəhərindən 40 km. şimal-şərqdə böyük Qafqazın ətəyində, nəmlik çox olan yerlərdə, günəşli, meşə torpaq tipinə malik 400 m dəniz səviyyəsindən yüksəklikdə əkilmişdir (Səlimov, Hüseynov,Şükürov 2022).

## TƏDQIQAT METODU

Təcrübələr tədqiqat obyekti olaraq Traminer üzüm sortu üzərində aparılmışdır. Təcrübələr OIV deskriptorlarının kodlarına əsaslanaraq bir salxımın kütləsi, şirədə şəkərlilik və titrlənən turşuluq, hektarın məhsuldarlığı təyin edilmişdir (Səlimov,2019).

## TƏDQIQAT NƏTICƏLƏRININ HESABLANMASI BEYNƏLXALQ ÜZÜM VƏ ŞƏRAB TƏŞKILATININ (OIV) AMPELODESKRIPTOR GÖSTƏRICILƏRINƏ ƏSASƏN ÖYRƏNILMIŞDIR.

## NƏTICƏ

Tədqiqat müxtəlif formalar üzərində Traminer üzüm sortuna müxtəlif yük normaları verməklə məhsuldarlıq göstəriciləri dəyişmiş, istehsal olunan məhsulun mexaniki və kimyəvi göstəriciləri yaxşılaşmışdır. Müxtəlif formalar üzərində aqrotexnikanı tətbiq etməklə yük normasının müəyyənləşdirilməsi nəticəsində məhsuldarlıq artmışdır. Əhəmiyyətli dərəcədə keyfiyyətin göstəricilərinə təsiri müsbət olmuşdur. Traminer üzüm sortunda, şirədə şəkərlilik 5,5 q/100 $sm^3$ və titirlənən turşuluq 21,2 q/$dm^3$ olmuşdur. Beləliklə göründüyü kimi alınan nəticələr, həmin məhsullardan yüksək keyfiyyətli şərab hazırlanmasına zəmin yaradacaqdır.

Cədvəl.Traminer üzüm sortunda kordon forması verməklə yük normasının məhsuldarlığa və keyfiyyətə təsiri

| Variantlar | Kordon formasında yükvermənin norması | Təcrübənin təkrarı | Bir tənəkdə | | Bir salxımın kütləsi, q | On tənəkdə | | Məhsuldarlıq s/ha | Şirədə şəkərlili, q/100$sm^3$ | Turşuluq, q/$dm^3$ | Sıxlıq q/ $dm^3$ |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | Salxımların miqdarı, ədəd | Salxımların kütləsi, kq | | Salxımların miqdarı, ədəd | Salxımların kütləsi, kq | | | | |
| I | 5 tənəkdə 20-25 göz saxlamaq | 1<br>2<br>3<br>orta | 19<br>18<br>19<br>19 | 1,71<br>1,73<br>1,9<br>1,78 | 90<br>96<br>100<br>95 | 190<br>180<br>190<br>190 | 17,1<br>17,3<br>19<br>17,8 | 38<br>38<br>42<br>40 | 21,2<br>21,1<br>21,1<br>21,1 | 5,5<br>5,4<br>5,4<br>5,4 | 1090<br>1091<br>1092<br>1091 |
| II | 5 tənəkdə 25-30 göz saxlamaq | 1<br>2<br>3<br>orta | 21<br>22<br>22<br>22 | 1,78<br>1,94<br>1,96<br>1,89 | 85<br>88<br>89<br>87 | 210<br>220<br>220<br>220 | 17,8<br>19,4<br>19,6<br>18,9 | 40<br>43<br>44<br>42 | 20,1<br>20,0<br>20,1<br>20,0 | 5,8<br>5,9<br>5,8<br>5,8 | 1088<br>1087<br>1086<br>1087 |
| III | 5 tənəkdə 30-35 göz saxlamaq | 1<br>2<br>3<br>orta | 23<br>24<br>25<br>24 | 1,93<br>2,04<br>2,07<br>2,01 | 84<br>85<br>83<br>84 | 230<br>240<br>250<br>240 | 19,3<br>20,4<br>20,7<br>20,1 | 43<br>45<br>46<br>45 | 20,0<br>20,0<br>20,1<br>20,0 | 6,0<br>6,0<br>5,9<br>5,9 | 1089<br>1088<br>1087<br>1088 |




| | 1 | 2 | 3 |
|---|---|---|---|
| Turşuluq, q/dm3 | 5.4 | 5.8 | 5.9 |
| Şirədə şəkərlili, | 21.1 | 20 | 20 |
| Məhsuldarlıq s/ha | 45 | 42 | 45 |

Şəkil. Traminer üzüm sortunun məhsuldarlığı, şəkərliliyi və titrlənən turşuluğu

**ƏDƏBIYYAT SIYAHISI**

1. Dölek, T. Siirt yöresinde yetiştirilen bazı üzüm çeşitlerinin göz verimliliklerinin belirlenmesi ve farklı göz sarjı uygulamalarınınerim ve kaliteye etkisi / T. Dölek,. H.S. Atlı., N. Keskin -Munzur Zirvesi Uluslararası Uygulamalı Bilimler Kongresi, 31 Mayıs, - Tunceli: - 2020. - s. 139-155.

2. Гусейнов Ш.Н. Влияние нормы нагрузки кустов побегами на продуктивность виноградника // Ш.Н. Гусейнов, С.В. Майбородин , А.Г. Манацков // Русский виноград.- 2019. Т. 10. -с. 89-94.

3. Səlimov V.S., Üzümün:aqrotexnikası, aqrokimyası və inteqrir mübarizə tədbirləri./V.S.Səlimov, A.S.Şükürov, M.Ə. Hüseynov- Bakı: Sapfir-15, 2022, 784 s.

4. Səlimov, V.S. Üzümün becərilmə texnologiyyası, bitki mühafizəsi və aqrotexnikası. / V.S.Səlimov, A.S.Şükürov, M.Ə.Hüseynov - Bakı: Zərdabi Nəşr MMC Nəşriyyat Poliqrafiya müəssisəsi, - 2022. - 783s.

5. Səlimov, V.S. Üzümün ampeloqrafik skrininqi /V.S. Səlimov. - Bakı: Müəllim, - 2019. -319 s.

# EKOLOJİ FAKTORLARIN QƏBƏLƏ RAYONU MEŞƏLƏRİNİN YÜKSƏKLİK STRUKTURUNA TƏSİRİ

**Hüseynova Aynur**
Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Dendrologiya İnstitutu
"Meşə ekosistemləri"laboratoriyası
*aynur.huseynova.1968@mail.ru*
Bakı, Azərbaycan Respublikası

**XÜLASƏ**

Qəbələ rayonu meşə ərazisində ilkin meşə tipləri, həmçinin bitki örtüyünün yüksəklik qanunauyğun yayılmasi insan fəaliyyətinin təsiri nəticəsində bu və ya digər dərəcədə pozulmuşdur. Xüsusi qiymətli meşə massivində saqqiz, ardıc meşəliklərində ağacların qanunsuz kəsilməsi və intensiv mal-qara otarılmasi nəticəsində kserofit, bəzən yarımsəhra bitki qrupları ilə əvəz olunmuşdur. Palıd meşələri üstünlük təşkil edən Acınohur öndağlığı ərazisində meşələrin yox edilməsi, uzun müddət əkinçilik və maldarlıqda istifadə edilməsi nəticəsində törəmə tipli bitki örtüyü formalaşmışdır. Burada palıd meşələrinin və törəmə tipli vələs ağaclarının qalıqlarına təsadüf edilir.

Qəbələ rayonu meşə ərazisinin bitki örtüyündə, quruluşunda, məhsuldarlığında ciddi dəyişikliklər müşahidə olunmuşdur. Mövcud problemlərin müəyyənləşdirilməsi ilə meşə kompleksinin hazırkı vəziyyətini, yükşəklik bitki qurşaqlarını, meşə kompleksinin qanunauyğunluqlarının və inkişafının səmərəliliyini qiymətləndirmək aktual hesab olunur. Tədqiqat işinin məqsədi, meşə ərazisinin perspektivli istiqamətlərinin formalaşdırılması və meşələrin idarə olunması üçün effektli bir mexanizm yaratmaqdır.

AÇAR SÖZLƏR: bitki örtüyü, relyef, ekologiya, qurşaqlar, təbii ehtiyatlar, ekoloji faktorlar

**ABSTRACT**

In the forest zone of the Gabala region, indigenous forest types, as well as the regular distribution of vegetation heights, are to one degree or another disrupted as a result of the impact of human activity. As a result of illegal logging of trees and intensive grazing of livestock in gum and juniper forests, a change in xerophytic and sometimes semi-desert groups of plants occurred in a particularly valuable forest area. In the foothills of Akinohura, where oak forests predominate, a derivative type of vegetation has formed as a result of forest destruction and long-term use of agriculture and livestock raising. Here you can find remnants of oak forests and derived species of hornbeams.

Serious changes are observed in the vegetation, structure and productivity of the forest in the Gabala region. It is considered relevant to assess the current state of the forestry complex, high-altitude vegetation zones, patterns and effectiveness of the development of the forestry complex by identifying existing problems. The goal of the research work is to create an effective mechanism for the formation of promising areas of forestry and forest management.

**KEY WORDS:** vegetation, relief, ecology, belts, natural resources, ecological factors.

## GİRİŞ

Qəbələ rayonu ərazisinin iqlimi, coğrafi mövqeyi, relyefinin əsasən dağlıq olması və şaquli qurşaqlıq, ərazidə mürəkkəb iqlim şəraitinin formalaşmasına, çay şəbəkəsinin sıxlığına, torpaq-bitki örtüyünün zənginliyinə böyük təsir göstərmişdir. Şimal hissədə Baş Qafqazın Cənub yamacının yüksək dağlığından başlanmış mərkəzi hissədə Alazan-Həftəran (Qanıx-Əyriçay) vadisinə, cənub hissəsi isə Acınohur ön dağlığının Qəbələ yaylasına, bu yaylanın cənubunda Şirvan düzü ilə sərhədləşdiyi alçaq dağlıqdan başlayaraq Böyük Qafqazın suayrıcı zirvələrinə qədər, torpaq-bitki örtüyünün şauqli qurşaqlıq qanunauyğunluğu, areal və zonallalığın növbələşməsinə səbəb olmuşdur[3].

Qəbələ rayonu meşə ərazisinin mərkəzi hissəsində kollu və seyrək çəmənliklər, cənubda isə yovşan, yovşan və şorangəli yarımsəhra bitkiləri, bozqır yayla ərazisində arid tipli meşələr yayılmışdır. Düzən meşə qurşağı 600 (900-1000) m-də palıd və palıd-vələs meşələrini, fıstıq meşələri əvəz edir. Düzən meşələr tədricən aşağı dağ-meşə qurşağı ilə əvəz olunur və 1000-1100 m hündürlüyə qədər davam edir.Fıstıq meşələri yüksək doluluqlu ən məhsuldar meşələri (I-II bonitetli) meşələr hesab olunur. Aşağı dağ-meşə qurşağında1000-1100 metr yüksəklikdə, 1000-1800 metr yüksəklikdə

orta dağ-meşə qurşağı, 1800-2000 (2300) metr yüksəklikdə yuxarı dağ-meşə qurşağı, 1800-2000-dən 2500-3000metr hündürlüyə qədər subalp və alp çəmənlikləri, daha sonra isə 3100-3600 metr yüksəklikdə, qayalı subnival və qarlı-buzlaqlı nirel qurşaqlar bir-biri ilə növbələşir[5].

Qəbələ rayonunun Alazan -Həftəran vadisində pozulmuş düzən meşələri çox yerdə bağlar, kənd təsərrüfatı sahələri, törəmə tipli kolluqlar (şibləklər) və yaşayış məntəqələri ilə əvəz olunmuşdur. Qəbələnin dağ və düzən meşələri endemik və relikt bitkilərlə, meyvə və giləmeyvə ağac və kol bitkiləri ilə zəngindir. *Fagus orientalis* Lipsky, *Quercus macranthera* Hohen., *Carpinus betulus* L., *Acer heldreichii* Subsp., *Pterocary pterocarpa* (Michx.) Kunth. ex I. Iljinsk), *Populus alba* L., *Salix* L., *Ulmus* L., *Tilia* L., *Acer campestre* L., *Juniperus oblonga* M.B. *Pistacia lentiscus* L., *Castanea* Mill., *Juglans* L., *Corylus* L. və s. ağac və kolları buna misal göstərmək olar [1]. Türyançayla – Göyçay çayları arasında yerləşən surxayxan dağlarındakı 6,994 ha arid ,(quraq) meşə lantşaftı əsasən relikt arcan(*Crataegus arcana*), ardıc, saqqız və yabanı nar ağac və kollardan ibarətdir (cədvəl 1.).

***Cədvəl 1.****Qəbələ rayonu ərazisində yükşəklik bitki qurşaqları*

| **Qurşaqlar** | **Əsas bitki formasiyaları** | **Qəbələ rayonu** |
|---|---|---|
| Yarımsəhra və səhra | Yovşanlı, yovşanlı - şorangəli yarımsəhra, yovşanlı dağlıq- şorangəli yarımsəhra. | 100-200m *Salsola dendroides* Pali, *Artemisia* L. |
| Yarımbozqır, arid meşələr, şibləklər | Daşdayanlı Yarım bozqır, arid meşələrin fraqmentləri, şibləklər | 500-700m ardıc-saqqız seyrəklikləri |
| arid meşələr | Saqqızlı ardıc meşə formasiyaları, daşdayanlı, yarım bozqır, friqana qruplaşmaları, şibləklər. | 600-2000m |
| Düzən meşələr | Qarışıq enliyarpaq meşə formasiyaları (uzsunsaplaq palıd, vələs,qarağac,qovaq asossiasiyaları) bataqlı çəmənlər | 600-800m |
| Aşağı dağ-meşə | İberiya palıdı, palıd-vələs meşə formasiyaları | 500(700)-1000-1100m |
| Orta dağ-meşə | Fıstıq, fıstıq- vələs meşə formasiyaları | 600(800)-1000-1800m |
| Yüksək dağ-meşə | Subalp meşələri,kolluqları və çəmənləri | 1800-(2000)2300m |
| Alp | Alp çəmənlər | 2500-3100 m |
| Subnival və qarlı-buzlaqlı nirel | Tundra tipli subnival | 3100-3600 m |

Subalp zonasında bitmə şəraitindən asılı olaraq mezofil subalp çəmənləri, bozqırlaşmış subalp çəmənləri, subalp bozqırları, alp qurşağında isə alçaqboylu otlardan ibarət alp çəmənləri yayılmışdır. 3500 m-dən yuxarıda subnival qurşağında torpaq yoxdur. Ərazi qayalıqlardan ibarətdir. Burada tək-tək çiçəkli ot bitkiləri növlərinə təsadüf edilir. Regionun yüksək dağlıq zonasında, meşə xüsusilə subalp və alp qurşaqlarında qayalıqlar, uçqunlar, yarğanlar, daşlıqlar geniş sahə tutur[4].

Meşə və subalp qurşaqlarında ilkin bitki örtüyünün yayılması qanunauyğunluqları insanın mənfi təsərrüfat fəaliyyətinin təsirinə məruz qalaraq pozulmuş, növ tərkibləri dəyişilmiş (pisləşmiş), çox vaxt törəmə tipli bitki qruplaşmaları ilə əvəz olunmuşdur. Yayla ərazisində dik yamaclarda ekoloji faktorların təsiri nəticəsində palıd meşələrinin azalması, torpaq örtüyünün güclü eroziyaya uğramasına, quraqlaşmaya, daşlı-çınqıllı sahələrin yaranmasına səbəb olmuşdur. Belə yerlərdə quraqlığa daha davamlı bitkilər- sumaq, dağdağan, acılıq, iydəyarpaq armud, tək-tək saqqızağac və s. inkişaf etmişdir. Yaylada törəmə tipli qaratikan kolluqları və yovşanlıqlar daha geniş yayılmışdır. Yuxarı meşə qurşağında uzunmüddətli intensiv maldarlığın təsiri nəticəsində meşə heç yerdə təbii sərhədində qalmamışdır[8].

Region ərazisində bitki örtüyü, o cümlədən meşələr yüksəklik qurşaqlıq qanununa uyğun olaraq yayılmışdır. Qəbələ rayonları ərazisində Alazan-Həftəran vadisinə birləşən Bozqır yaylalarında, əsasən şimal səmtlərində *Quercus iberica* Steven ex M. Bieb. üstünlük təşkil edən pozulmuş meşə qalıqlarına təsadüf edilir. Aşağı dağ meşə qurşağında sırf *Quercus iberica Steven* ex M. Bieb. və qarışıq palıd-vələs meşələri, orta dağ-meşə qurşağında *Fagus* L. meşələri, yuxarı dağ-meşə qurşağında isə *Quercus macranthera* Hohen., *Acer heldreichii* Subsp. və *Betula* L. meşələri yayılmışdır[2].

Regionun meşə təsərrüfatları ərazisində meşə ilə örtülü sahə 45478 hektardır. Meşəlik faizi 23,01 faizdir.

***Cədvəl 2.****Qəbələ rayonu meşələrinin ağac cinsləri və meşəlik faizi*

| **Meşə təsərrüfatı** | **Ustünlük təşkil edən ağac cinsi, ha-la** | | | | **Digər ağac cinsləri** | **Meşə ilə örtülü sahə** | **Rayonun meşəlik faizi** |
|---|---|---|---|---|---|---|---|
| | *Fagus* L. | *Quercus* L. | *Carpinus* L. | Cəmi | | | |
| Qəbələ | 15558 | 8714 | 8583 | 32855 | 12623 | 45478 | 23,01 |

Qəbələ rayonu meşə ərazisində əsasən fıstıq (85,6 min ha), palıd (45,6 min ha) və vələs (45,8 min ha) meşələri yayılmışdır. Digər ağac cinslərindən ibarət meşəliklər (ağcaqayın, qarağac, tozağac, qoz, şabalıd, cökə, qaraçöhrə, Qafqaz xurması) və süni ağaclıqlar cəmi 19% təşkil edir[6].

Qəbələ rayonu meşə ərazisində bitki örtüyü antropogen təsir nəticəsində dəyişmişdir. Meşə formasiyaları intensiv dəyişikliyə məruz qaldığından onların ekoloji vəziyyəti daim pisləşir. Bir sıra sıx məskunlaşmış ərazilərdə bu hazırda ən aktual problemdir.Meşə örtüklü sahələrinin, ətraf ərazilərdə yaşayış sahələri yaxınlığında yerləşməsi, insanların bu ərazilərdə mal-qara ilə məşğul olmağı, ağacların qanunsuz olaraq kəsilməsi dağ-meşə qurşağına bir çox ağır zərbələr vurur.

Orta dağ meşə qurşağında antropogen amillərin təsiri nəticəsində bir çox fıstıq meşələri, pöhrələrdən yaranmış vələsliklə, yaxud bir sıra kolluqlarla əvəzlənmişdir. Bəzi meşə əraziləri var ki, burada meşənin seyrəkliyi boşluq sahələrlə, bir sıra kolluqlarla əhatələnmişdir [7].

**TƏDQIQAT METODU**

Qəbələ rayonu meşə ərazisində bitki örtüyünün müasir vəziyyəti, dağlıq əraziyə məxsus yüksək zonallıq qanununauyğunluğu, yükşəklik bitki qurşaqları, ağac cinslərilərinin meşəlik faizi təhlil edilmişdir. Antropogen amillərinin təsirləRi, eroziya proseslərinə, ərazinin səth örtüyünə, meşə ərazilərinin seyrəkləşməsinə və sürüşmə zonalarının aktivliyinə səbəb olmuşdur.Tədqiqatlar zamanı öyrənilən ərazi üçün xarakterik olan bitkilər və yüksəkliklər "Garmin" markalı GPS-lə təyin edilmişdir. Bitkilərin təyin olunmasında "Azərbaycan florası"-dan istifadə edilmiş və S.K.Çerepanova [1] görə dəqiqləşdirilmişdir. Dövlət Təbiət Qoruqları[2], relyef [3],ekologiya [4], qurşaqlar [5], təbii ehtiyatların qiymətləndirilməsi [6], ekoloji faktorlar [7;8], ətraf mühiti mühafizə[9]. Antropogen və təbii dağıdıcı hadisələrin yaratdığı ekoloji problemlər və onlara qarşı mübarizə tədbirləri tədqiq edilmiş, iqlim, torpaq və bitki ehtiyyatlarının ekoloji cəhətdən qiymətləndirməsinə cəht göstərilmişdir.

**NƏTİCƏ**

Qəbələ rayonu meşə ərazisində bitki örtüyündə təbii və antropogen amillərin təsiri nəticəsində müəyyən dərəcədə dəyişikliklər baş vermişdir. Qəbələ royonu meşə ərazisində bitki örtüyü dağlıq əraziyə məxsus yüksək zonallıq qanununa uyğun olaraq dəniz səviyyəsindən yuxarı qalxdıqca dəyişir. Rayonun ərazisində düzən meşələrinin qalıqlarına (*Alnus barbata C.A.Mey., Pterocary pterocarpa* (Michx.) Kunth. ex I. Iljinsk), *Populus alba* L., *Quercus. longipes* Stev.) rast gəlinir. Burada pozulmuş düzən meşələri çox yerdə bağlar, kənd təsərrüfatı sahələri, törəmə tipli kolluqlar (şibləklər) və yaşayış məntəqələri ilə əvəz olunmuşdur. Regionun meşə təsərrüfatları ərazisində meşə ilə örtülü sahə 45478 hektardır. Meşəlik faizi 23,01 faizdir.

Qəbələ rayonu meşə ərazisində antropogen təsirlər eroziya proseslərinə, ərazinin səth örtüyünə, meşə ərazilərinin seyrəkləşməsinə və sürüşmə zonalarının aktivliyinə səbəb olmuşdur.

Ərazinin müxtəlif relyefi, iqlimi, bitki, torpaq örtüyü və bu təbii komponetlərin yüksəklikdən asılı olaraq yaratdığı təbii meşə, alp və subalp çəmən və çəmən-çöl biosenozları zaman-zaman insanın təsrrüfat fəaliyyətinin təsirinə məruz qalaraq öz arealını və təbiiliyini itirmişdir.

Vələs ağaclarının faiz nisbətinin daha yüksək olmasından aydın olur ki, antropogen fəaliyyətin mənfi təsiri nəticəsində vələs ağaclarının böyük bir qismi fıstıq ağaclarının yerini tutmuşdur.

Antropogen fəaliyyətə qadağa qoyulmuş ərazilərdə ətraf mühit öz təbii formasını almağa çalışsa da bu uzun bir vaxt tələb edir. Düzgün təşkil olunmuş tədbirlər planı məsələn, süni meşələrin salınması insanlar tərəfindən həyata keçirilən ən effektli həll yoludur. Mühitə uyğun ağac və kol cinslərindən seçməklə meşə bərpa işlərini sürətləndirmək vacibdir[9].

**ƏDƏBİYYAT SİYAHISI**

1. Черепанов,С.К. (1995). Сосудистые растения России и сопредельных государств (в пределах бывшего СССР). СПБ.: МИР И СЕМЬЯ.
2. Dövlət Təbiət Qoruqları. (2014).Buklet.Ekologiya və Təbii Sərvətlər Nazirliyi/Azərbaycanin mühafizə olunan təbiət sərvətləri, (2014).
3. Морозов, Г.Ф. (1914). Учение о лесе.40-52.
4. Əmirov,F.Ə. (2003). Meşələrin ekoloji rolu. "Azərbaycan" nəşriyyati, Bakı, 236.
5. Hüseynova, A.İ. (2023). dağliq ərazilərdə yamaclarin səmtinin meşəbitmə şəraitinə təsiri haqqinda ADAU-nun Elmi Əsərləri DOI:10.30546/2790-5799.2. 10-15.
6. Həsənov, E.Ə.( 2005). Böyük Qafqazin ənub hissəsinin təbii ehtiyatlari və onlarin qorunmasi. Bakı, ―Azərnəşr, 276.
7. Xəlilov,M.Y. (2000). Bitki örtüyünün antropogen dəyişilməsi və bərpası. Azərbaycan Respublikasinin Konstruktiv coğrafiyasi. Bakı,«elm», 79-83.
8. Hüseynova, A.İ. (2023). Avrasiyanin Biomüxtəlifliyi. Hirkan Milli Parkinin floristik tərkibinə antropogen və iqlim amillərinin təsiri. VI-ci Beynəlxalq Simpozium, Bakı, Seab – 2023, 75-78. ISBN: 978-605-74044-1-1
9. Göyçayli, Ş.Y. & Əzizov, B.M. (2008). Ətraf mühiti mühafizə. Bakı.

# VİRUS İNFEKSİYASININ BUĞDA YARPAQLARINDA NAD- VƏ NADP- MALATDEHİDROGENAZA FERMENTLƏRİNİN FƏALLIĞINA TƏSİRİ

**b.ü.f.d., dos. Ulduzə Əhməd qızı Qurbanova*,**
**b.ü.f.d., dos. Nərgiz Fəxrəddin qızı Sultanova, b.ü.f.d Nərgiz Kamal qızı Bayramova**
AR ETN Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutu
*ulduzagurbanova@gmail.com*
BAKI, AZƏRBAYCAN

XÜLASƏ

Buğda (T*riticum aestivum* L.) strateji əhəmiyyətli kənd təsərrüfatı bitkisi olmaqla yanaşı, qlobal ərzaq təhlükəsizliyində mühüm rol oynayır və dayanıqlı kənd təsərrüfatı sahələrinin inkişafı istiqamətində aparılan elmi-tədqiqat işlərinin unikal tədqiqat obyekti kimi müstəsna əhəmiyyətə malikdir. Bir zəncirli DNT tərkibli *Geminivirus* ailəsinə aid olan *wheat dwarf virus* (WDV), müsbət bir zəncirli RNT tərkibli *Potivirus* ailəsinə aid olan *Wheat streak mosaic virus* (WSMV), *poleroviruslara* aid *Barley yellow dwarf virus* (BYDV) kimi buğda virusları müxtəlif xəstəliklər törətməklə kənd təsərrüfatı üçün ciddi təhlükə yaradırlar və bu mühüm ərzaq bitkisinin məhsuldarlığını kifayət qədər azaltmağa qad**I**rd**I**rlər. Viruslar bütün dünyada geniş tədqiq olunsa da, onların təsirindən bitkilərdə metabolizmin müxtəlif səviyyələrində baş verən dəyişikliklər az öyrənilmişdir**.** Təqdim edilən tədqiqat işində sağlam və virus ilə yoluxmuş buğda yarpaqlarında NAD-malatdehidrogenaza və NADP-malatdehidrogenaza fermentlərin aktivliklərinin dəyişmə dinamikası tədqiq edilmişdir**.** Nəticələrdən göründüyü kimi sağlam yarpaqlar ilə müqayisədə virus yoluxmuş xəstə bitkilərin yarpaqlarında NAD-malatdehidrogenaza və NADP-malatdehidrogenaza fermentlərinin fəallıqları artmışdır. Buğda bitkisində virus xəstəliklərinin tədqiqi onların yayılmasının qarşısını almaq, buğda istehsalının davamlılığını təmin etmək, davamlı sortların yaradılması və viruslara qarşı effektiv mübarizə üsullarının işlənib hazırlanması üçün olduqca vacibdir.

**AÇAR SÖZLƏR:** ***buğda, virus, NAD-malatdehidrogenaza, NADP-malatdehidrogenaza***

## GIRIŞ

Buğda (T*riticum aestivum* l.) Strateji əhəmiyyətli kənd təsərrüfati bitkisi olmaqla yanaşı, qlobal ərzaq təhlükəsizliyində mühüm rol oynayir və dayanıqlı kənd təsərrüfatı sahələrinin inkişafı istiqamətində aparılan elmi-tədqiqat işlərinin unikal tədqiqat obyekti kimi müstəsna əhəmiyyətə malikdir (Ghatak et al., 2022). Viruslarla yoluxmuş bitkilərdən əldə edilən məhsullarin əmtəə dəyəri çox aşağı olur, bir sıra hallarda isə yoluxmuş bitkilər ümumiyyətlə məhsul vermirlər. Bu viruslarla yoluxma zamani bitkilərin metabolizminin pozulması və nəticədə inkişafin, böyümənin dayanmasi ilə izah olunur. Viruslar bütün dünyada geniş tədqiq olunsa da, onların təsirindən bitkilərdə metabolizmin müxtəlif səviyyələrində baş verən dəyişikliklər az öyrənilmişdir.

Malat metabolızmı fermentləri mühüm və mürəkkəb bir rola malik olub ali bitkilərdə karbonun və enerjnin paylanmasinda mühüm rol oynayir. NAD-malatdehidrogenaza (MDH, L-malat-NAD oksidoreduktaza, EC 1.1.1.37) heyvanlarda, bitkilərdə və mikroorqanizmlərdə geniş yayılmışdır. MDH, bir sıra metabolik və hüceyrə proseslərində iştirak edən oksaloasetat və malatın əks reaksiya ilə çevrilməsini kataliz edərək NAD/NADH nisbətini hüceyrədaxili mühitdə sabit saxlayır. Malatdehidrogenaza sistemi fermentləri bir neçə əsas metabolik yolları əhatə edərək hüceyrə metabolizmində inteqrativ rol oynayır. Bitki metabolizmində mühüm rol oynayan və geniş yayılmış NAD-malatdehidrogenaza fermenti bitki orqanellalarının əksəriyyətində başlıca rola malik olan aralıq metabolitlədən biri malatın oksaloasetata və əksinə çevrilmə reaksiyasını həyata keçirir. Malat nitratın reduksiyasının nadh ilə təmin edilməsi, yağ turşularının biosintezinin karbon skeletləri və nadh ilə təmin edilməsi, fototənəffüsə yardım, osmotik təzyiqin tənzimlənməsi vasitəsilə ağızcıqların hərəkəti, hüceyrə pH-na nəzarət, redoks hemostaz və hüceyrə kompartmentləri arasında reduksiya olunmuş ekvivalentlərin nəqli və mübadiləsi kimi bir çox fizioloji proseslərdə iştirak edir.

NADP-MDH fermenti NADP elektron akseptorunun regenerasiyası üçün NADPH-dan istifadə edərək oksalasetatı malata çevirir (Yokochi et al 2021). Fermentin aktivlik səviyyəsi bitkinin cavan yarpaqlarında daha yüksək olur və yarpaqlar qocaldıqca bu səviyyə aşağı düşür. Bu fakt NADP-MDH-nın fermentativ aktivliyinin metabolizm ilə sıx əlaqədə olduğunu göstərir. NADP-MDH-nın aktivləşməsi onun məhsulu olan NADP ilə inhibirləşir. Buna görə də NADPH xloroplastda assimilyasiya prosesləri üçün sərf olunduqda NADP-MDH öz aktivliyini "söndürür". Bunun sayəsində malat kimi reduksiyaedici ekvivalentlərin ixracı baş vermir. Elektronlar malata köçürüldükcə ATF əmələ gəlməsi davam etdiyi üçün malat klapanı reduksiyaedici ekvivalentlərin dolayı ixrac sistemi kimi xloroplastlarda ATF/NADPH tarazlığının qorunmasında həlledici rol oynayır (Selinski and Scheibe 2019).

Beləliklə, bu fermentlərinin mühüm və mürəkkəb bir rola malik olması onun ali bitkilərdə karbonun və enerjnin paylanmasında vacibliyini göstərir. Bu da öz növbəsində bitkinin inkişaf sürətinin biomühəndisliyi üçün yeni istiqamətlər açır və həmçinin bitkilərdə tənəffüs, fotosintez və fototənəffüsü əlaqələndirən molekulyar mexanizmlər haqqında yeni ideyalar verir. Aparılmış tədqiqat işində sağlam və virus ilə yoluxmuş buğda yarpaqlarında NAD-malatdehidrogenaza və NADP-malatdehidrogenaza fermentlərin aktivliklərinin dəyişmə dinamikası tədqiq edilmişdir**.**

## TƏDQIQAT METODU

Virus patogenezi zamani bitkidə metabolik aspektdə baş verən dəyişiklikləri tədqiq etmək məqsədilə, ilk növbədə hər bir bitki üçün virusun aşağı, orta və yüksək qatılıqları nisbi olaraq ELİSA metodu ilə müəyyən edilmişdir. Bu məqsədlə 15µl İgG 1/1000 nisbətində 15 ml coating buffer üzərinə əlavə edilib, qarışdırıldıqdan sonra ELİSA üçün istifadə edilən 96 yuvalı polesterol planşetin yuvalarına 150 µl əlavə edilmişdir, 37 °C-də 3 saat inkubasiya edilmiş, inkubasiya müddəti başa çatdıqdan sonra isə planşetin yuvaları washing buffer ilə 3 dəfə yuyulmuşdur. Xarakterik virus simptomlarına malik bitki nümunələrinin yarpaqları əvvəlcədən hazırlanmış extraction buffer a məhlulunda homogenezə edilmiş, alınmış homogenat 150 µl olmaqla 96 yuvalı planşetin ilk cərgəsindən başqa bütün yuvalara əlavə edilmişdir. İlk cərgədəki yuvalara isə virus kontaminasiyasinin qarşisini almaq məqsədilə extraction buffer a əlavə edildikdən sonra 4 °C-də 24 saat inkubasiya olunmuşdur və washing buffer məhlulu ilə 3 dəfə təkrarlanmaq şərti ilə yenidən yuyulmuşdur. Əvvəlcədən hazirlanmiş conjugate buffer-ə münasib olaraq 1/1000 nisbətində İgG-AP əlavə edilərək, qarişdirildiqdan sonra alınməş məhluldan 150 µl yuvalara əlavə edilmiş, 2-3 saat 37 °C-də inklubasiya olunmuşdur. İnkubasiyadan sonra planşet washing buffer ilə yenidən 3 dəfə yuyulmuşdur. Hər bir mərhələ üçün elisa planşetin yuyulmasi elisa avtomatik yuma sistemində

(elx50/8 microplate strip washer, biotek) həyata keçirilmişdir. Fermentativ reaksiya üçün PNPP (p-nitrophenylphosphate) istifadə edilmişdir. Substrat buffer –də PNPP məhlulu hazirlanmiş və elisa planşet üzərində hər bir yuvaya 150 µl olmaqla əlavə edilmişdir. Planşet üzərində gedən fermentativ reaksiya zamani virusun ilkin deteksiyasi əvvəlcə rəngin dəyişməsinə görə həyata keçirilmişdir. Hər bir bitki nümunələrində virusun qatılığı optik sıxlığa əsasən spektrofotometrik 405 nm dalğa uzunluğunda (Stat Fax Microplate, Aweress Technology, Abş) ölçmələr aparmaqla müəyyən edilmişdir. Nəticədə virus aşkar edilmiş bitki nümunələrində aşağı qatılıq 0.4-0.6 (E 405), orta qatılıq 0.6-0.8 (E 405) və yüksək qatılıq 0.8-1.2 (E 405) olmaqla müəyyən edilmişdir. Azərbaycanın müxtəlif bölgələrindən toplanmış buğda bitkilərində müxtəlif seroloji (AgriStrip və DAS-ELİSA) və molekulyar metodlardan (PCR, RT-PCR) istifadə etməklə WDV, WSMV, BYDV viruslari aşkar edilmişdir. Analizlər üçün təyin edilən üç müxtəlif qatılıqda virusla yoluxmuş bitki nümunələri və nəzarət varianti olaraq eyni ərazidən toplanmış sağlam (simptomsuz və yoxlanilan bütün viruslar üçün seroloji və molekulyar skrininqin nəticələrinə görə neqativ) bitki nümunəsi seçilmişdir. Fermentlərin aktivliyini təyin etmək üçün yarpaqlar gövdədən ayrılmış, distillə suyu ilə yuyulduqdan, filtr kağizi ilə qurudulduqdan sonra xırda hissələrə doğranmış və həvəngdəstədə kvars qumunun iştirakı ilə 2 dəqiqə müddətində 20 мм $MgCl_2 \cdot 6H_2O$, 1 мм EDTA, 5 мм DTT, 20% qliserin və 0,5% polovinilpirrolidon tərkibli, 100 мм TRİS-HCl (Ph 8,0) bufer məhlulunda homogenizasiya olunmuşdur. Bu proses 1 q yarpağa 5 ml bufer məhlulu əlavə etməklə $+4^0C$ temperaturda aparılmışdır. Alınan homogenat ikiqat kaprondan süzüldükdən sonra nüvədən və parçalanmayan bitki toxumalarından azad olunmaq üçün əvvəlcə 10 dəq 10000rpm sürəti ilə sentrifuqalaşdırılmışdır. Çöküntü atıldıqdan sonra çöküntüüstü maye fermentlərinin aktivliklərinin tədqiq olunmasi məqsədi ilə istifadə olunmuşdur. NAD-malatdehidrogenaza aktivliyinin təyin olunması: NAD-malatdehidrogenaza aktivliyi (Ultrospec 3300 pro, amersham, usa) markalı spektrofotometrin köməyi ilə təyin olunmuşdur. Oksalasetatın reduksiyasının reaksiya mühiti 1 mm oksalasetat , 10 mg/ml qara malın zərdab albumini (BSA), 10 mm $MgCl_2$ (2 mM), 0,15 мм NAD·H ibarətdur. Reaksiya mühitə oksalasetat əlavə etməklə başlanır. Birbaşa reksiyanın mühiti: 100 mm TRİS-HCl, ph 9,0 30 mm malat, 0,2 mm NAD. Spektrofotometrik ölçmələr 1,0 ml həcmli spektrofotometrik küvyetlərdə aparılmışdır.

NADP-malatdehidrogenazanın aktivliyinin təyini NAD-malatdehidrogenaza aktivliyinin fərqli olaraq fermentin aktivləşdirilməsi ilə başlayır. Aktivləşmə buferinin tərkibinə 10 mq/ml qara malın zərdab albumini və ferment preparatı daxil olan pH 8,0, 1 M Tris-HCl buferindən ibarət aktivləşdirici mühitdə 100 mM DTT-nin iştirakı ilə 15 dəqə müddətində aparılmışdır.

NADP-MDH üçün reaksiya mühiti: 100 мM, pH 8,0, Tris-HCl buferi, 10 mq/ml 113 BSA, 0,5 M EDTA·4Na, 20 mM $MgCl_2$, 10 мM NADP·H və 30 µl aktivləşdirilmiş ferment preparatı. Reaksiya mühitinə 10 mkl 1 mM OA əlavə etməklə reaksiyanın başlanmasına start verilir. Fermentin aktivliyinin təyini 1 dəq müddətində reaksiyanın gedişi zamanı NADP·H-ın sərf olunması ilə əlaqədar olaraq optiki sıxlığın azalmasına əsaslanmışdır. ε-ekstinksiyanın millimolyar ekvivalenti NADPH üçün 340 nm dalğa uzunluğunda maksimum udulma zamanı 6,22 $мM \cdot sm^{-1}$ -ə bərabərdir

Küveytdəki nad·h-ın miqdarı 340 nm dalğa uzunluğunda 1 dəqiqə ərzində bu birləşmənin molyar qatılığının optiki sıxlığının azalmasına əsasən təyin edilmişdir. NAD-malatdehidrogenaza aktivliyi aşağıdakı düstura əsasən hesablanmışdır:

$$A = \Delta OP \cdot v / \varepsilon \cdot b \cdot \tau$$

A – beynəlxalq sistemdə aktivlik, ΔOP-optiki sıxlığın bir dəqiqə ərzində dəyişməsidir, в – reaksiya mühitinin həcmi (ml), τ-reaksiyanın gedişinə sərf olunan zamandır, ε – ekstinksiyanın millimolyar ekvivalentidir. O NAD-malatdehidrogenazanın kofermenti olan $NAD^+$ və NADH üçün 340 nm dalğa uzunluğunda maksimum udulma zamanı 6,22 $мM \cdot sm^{-1}$-ə bərabərdir, b – reaksiya mühitinə əlavə olunan ferment ekstraktının həcmidir (µl). Fermentlərin xüsusi aktivlikləri zülala və 1 q yaş çəkiyə görə hesablanmışdır. Bu 1 ml ferment ekstraktında olan fermentin aktivliyinin 1 ml-də olan zülalın midarına, yaxud da 1 ml ferment ekstraktında olan fermentin aktivliyinin yarpağın yaş çəkisinin qramlarla miqdarına bölünməsi yolu ilə hesablanmışdır.

**Ümumi zülalların miqdarının təyini:** Həll olan zülalın ümumi miqdarı spektrofotometrdə 0,12%-li Coomassie Brilliant Blue G-250 məhlulunun köməyi ilə təyin olunmuşdur. Optiki sıxlığın ölçülməsi spektrofotometrdə (Ultrospec 3300 pro, Amersham) 610 nm dalğa uzunluğunda yerinə yetirilmişdir. Dərəcəli əyrinin qurulması üçün qaramalın zərdab albuminindən istifadə edilmişdir.

Virus infeksiyasının təsirindən metabolizm proseslərində mühüm rol oynayan iki fermentin (NAD-malatdehidrogenaza və NADP-malatdehidrogenaza fermentlərinin) fəallıqlarında baş verən dəyişikliklər sağlam və yoluxmuş buğda yarpaqlarında müqayisəli şəkildə öyrənilmişdir.

Bitkilərdə də geniş yayılmış NAD-malatdehıdrogenaza əksər metabolik proseslərdə iştirak edir. Bunlara misal olaraq üçkarbonlu turşular və qlioksilat dövranında, amin turşularının sintezi, qlükogenezdə və metabolitlərin sitozolla subhüceyrə orqanoidləri arasında mübadiləsində iştirakını misal göstərmək olar. Bu fermentin iştirakı ilə bitkilərdə yaranan malat müxtəlif proseslərə qoşulur və adaptiv reaksiyaların yaranmasında mühüm rol oynayır. NAD-malatdehıdrogenaza həmçinin malatın oksaloasetata və əksinə çevrilmə reaksiyasını həyata keçirir. Mitoxondrilərdə Krebs tsiklinin komponenti, sitozol, peroksisomlarda və qlioksisomlarda malataspartat mübadiləsində iştirak edir. Yuxarıda sadalananları nəzərə alaraq demək olar ki, virus infeksiyaları zamanı bitkilərdə baş verən metabolik proseslərin tədqiqi zamanı NAD-malatdehidrogenaza və NADP-malatdehidrogenaza fermentinin fəallığının ölçülməsi mühüm əhəmiyyət kəsb edir. NAD-malatdehıdrogenaza fəallığı spektrofotometrik yolla təyin edilmiş və məlum olmuşdur ki, onun fəllığı WSMV virusu ilə yoluxmuş bütün nümunələrdə ~2 dəfə artmışdır (Şəkil 1.)




**Şəkil 1.** WSMV virusu ilə yoluxmuş buğda yarpaqlarında NAD-malatdehidrogenaza (A) və NADP-malatdehidrogenaza (B) fermentlərinin fəallığı.

Nəticələrdən göründüyü kimi sağlam yarpaqlar ilə müqayisədə virus infeksiyasının təsirindən tədqiq edilən xəstə yarpaqlarında NAD-malatdehidrogenaza və NADP-malatdehidrogenaza fermentlərinin fəallıqları artmışdır.

NAD-malatdehidrogenazanın ən yüksək fəallığı Murov 2 genotipinin xəstə bitkilərdən götürülmüş yarpaq nümunələrində aşkar edilmişdir. Murov 2 genotipinin xəstə yarpaqlarında fermentin aktivliyi normal bitkilərlə müqayisədə ~2 dəfə yüksəlmişdir.

NADP- malatdehidrogenazanın ən yüksək aktivliyi Zirvə 85 və Qızıl buğda genotiplərində müşahidə edilmişdir. Virus infeksiyasının təsirindən bu fermentin fəallığının artmasını bitkinin biotik stresə qarşı özünümüdafiə mexanizminin işə düşməsi ilə izah etmək olar.

Bitkilərdə stresin təsirindən molekulyar müdafiə mexanizmləri işə düşür. Bu cavab mexanizmlərinə müdafiə molekullarının sintezi, OFF-ın əmələ gəlməsi, makromolekul və ionların homeostazını aid etmək olar. Makromolekul və ionların mübadiləsi bitkilərin dehidratasiyaya qarşı olan cavab reaksiyalarından biridir. Həmçinin bu proses su və ion mübadiləsinin tənzimlənməsində rol oynayan akvoporinlərin və ion daşıma sistemlərinin aktivləşməsini və inaktivləşməsini əhatə edir. Bitkilərdə stresə qarşı cavab reaksiyalarından digəri isə az molekul çəkili həll olan maddələr və ya osmolitlər, istilik şoku və LEA zülalları (gecikmiş embriogenezdən asılı olan) kimi qoruyucu molekulların sintezidir.

## NƏTICƏ

Beləliklə, aparılan tədqiqat işi göstərmişdir ki, sağlam buğda yarpaqları ilə müqayisədə xəstə buğda yarpaqlarında virus infeksiyalarının təsirindən NAD-malatdehidrogenaza və NADP-malatdehidrogenaza fermentlərinin fəallığı artmışdır. Buğda viruslarının tədqiqi xəstəliklərin yayılmasının qarşısını almaq, buğda istehsalının davamlılığını təmin etmək, davamlı sortların yaradılması və viruslara qarşı effektiv mübarizə üsullarının işlənib hazırlanması üçün olduqca vacibdir. Qlobal iqlim dəyişikliyi və qlobal kənd təsərrüfatı ticarəti fonunda viral infeksiyaların sürətlə yayılması risklərinin ilbəil artması buğda viruslarının öyrənilməsini xəstəliklərə nəzarət mexanizminin formalaşdırılmasında və ərzaq təhlükəsizliyinin təmin edilməsində mühüm elementə çevirir.

Bu iş Azərbaycan Elm Fondu-Qrant **AEF-MCG-2022-1(42)-12/07/3-M-07** maliyyə dəstəyi ilə yerinə yetirilmişdir.

### ƏDƏBIYYAT SIYAHISI

1. Ghatak, A., Schindler, F., Bachmann, G., Engelmeier, D., Bajaj, P., Brenner, M., Fragner, L., Varshney, R.K. et al., (2022) Root exudation of contrasting drought-stressed pearl millet genotypes conveys varying biological nitrification inhibition (BNI) activity // Biology and Fertility of Soils volume 58, p. 291–306.
2. Sun X, Han G, Meng Z, Lin L, Sui N. (2019) Roles of malic enzymes in plant development and stress responses. Plant Signal Behav. 14(10):e1644596. doi: 10.1080/15592324.2019.1644596.
3. Cornara L, Mandrone M, Smeriglio A. (2024) Biotic and Abiotic Stressors in Plant Metabolism. Int J Mol Sci. 25(1): 121.
4. Yokochi Y, Yoshida K, Hahn F, Miyagi A, Wakabayashi KI, Kawai-Yamada M, Weber APM, Hisabori T. Redox regulation of NADP-malate dehydrogenase is vital for land plants under fluctuating light environment. Proc Natl Acad Sci U S A. 2021 Feb 9;118(6):e2016903118. doi: 10.1073/pnas.2016903118. PMID: 33531363; PMCID: PMC8017969.
5. Selinski J, Scheibe R. Malate valves: old shuttles with new perspectives. Plant Biol (Stuttg). 2019 Jan;21 Suppl 1(Suppl Suppl 1):21-30. doi: 10.1111/plb.12869. Epub 2018 Jul 17. PMID: 29933514; PMCID: PMC6586076

### EFFECT OF VIRUS INFECTION ON THE ACTIVITY OF NAD- AND NADP-MALATE DEHYDROGENASE IN WHEAT LEAVES

**ABSTRACT**

Being a strategically important agricultural plant, wheat (Triticum aestivum L.) plays a crucial role in global food security and is of exceptional importance as a unique object of scientific research aimed at the development of sustainable agricultural areas. Wheat viruses such as Wheat Dwarf Virus (WDV) belonging to the Geminivirus family containing single-stranded DNA, Wheat Streak Mosaic Virus (WSMV) belonging to the Potivirus family containing positive single-stranded RNA, and Barley Yellow Dwarf virus (BYDV) belonging to Poleroviruses pose a serious threat for agriculture by causing various diseases and can significantly reduce the productivity of this important food crop. Although viruses have been widely studied all over the world, little is known about the changes that occur at different levels of metabolism in plants due to their influence. In the presented paper, the dynamics of changes in the activities of NAD-malate dehydrogenase and NADP-malate dehydrogenase enzymes were studied in healthy and virus-infected wheat leaves. As seen from the results, the activity of NAD-malate dehydrogenase and NADP-malate dehydrogenase enzymes increased in virus-infected leaves compared to healthy ones. The study of viral diseases in the wheat plant is very important to prevent their spread, ensure the sustainability of wheat production, create resistant varieties, and develop effective methods of fighting against viruses.

***Keywords:*** *wheat, virus, NAD-malate dehydrogenase, NAD-malate dehydrogenase*

# RESPUBLİKAMIZIN TİCARƏT ŞƏBƏKƏSİNDƏ REALİZƏ OLUNAN YARMA VƏ YARMA MƏHSULLARININ KİMYƏVİ TƏRKİBİ VƏ KEYFİYYƏT GÖSTƏRİCİLƏRİNİN TƏDQİQİ

**Lalə Şamil qızı Mikayılova**
Azərbaycan Dövlət İqtisad Universiteti [ UNEC ]
Beynəlxalq Magistratura və Doktorantura Mərkəzi
lalamikayilova777@gmail.com
Bakı şəhəri. Azərbaycan

**XÜLASƏ**

Məqalə respublikamızın ticarət şəbəkəsində realizə olunan yarma və yarma məhsullarının kimyəvi tərkibinin öyrənilməsinə həmçinin bu məhsulların orqanoleptiki və fiziki-kimyəvi keyfiyyət göstəricilərinin tədqiqinə həsr olunmuşdur. Orqaoleptiki üsulla aparılan qiymətləndirmə zamanı yarma və yarma məhsullarının diş altında xırçıldaması, dadı, iyi və xarici görünüşü müəyyən olunmuşdur. Yarma və yarma məhsullarının müxtəlif növləri üzərində aparılan analizlərin nəticələri göstərdi ki, onların orqanoleptiki keyfiyyət göstəriciləri qüvvədə olan standartların (QOST 7022-97, QOST 5784-60, QOST 6292-93, QOST 3034-75, QOST 276-60) tələblərinə uyğundur və bu tələblərdən fərqli xüsusi kənarlaşma halları qeyd edilməmişdir. Fiziki-kimyəvi üsulla aparılan qiymətləndirmə zamanı isə yarma və yarma məhsullarında külün miqdarı, nəmliyin miqdarı, turşuluğun miqdarı və metal qarışıqların miqdarı təyin edilmişdir. Yarma və yarma məhsullarının müxtəlif növləri (buğda, düyü, vələmir yarmaları) üzərində fiziki-kimyəvi üsulla aparılan ekspertizadan alınan nəticələr göstərdi ki, buğda yarmasının „T" markasında nəmliyin miqdarı - 13,5 %, külün miqdarı - 0,58 %, metal qarışıqların miqdarı - 2,11 mq/kq, turşuluğun miqdarı - 2,13 °, „M" markasında nəmliyin miqdarı - 14,0 %, külün miqdarı - 0,55 %, metal qarışıqların miqdarı - 2,01 mq/kq, turşuluğun miqdarı - 2,13°, „MT" markasında nəmliyin miqdarı - 14,6%, külün miqdarı - 0,58%, metal qarışıqların miqdarı - 1,96 mq/kq, turşuluğun miqdarı - 2,25°, düyü yarmasında nəmliyin miqdarı - 12,5%, külün miqdarı - 0,58%, metal qarışıqların miqdarı - 1,80 mq/kq, turşuluğun miqdarı - 2,31°, vələmirdə nəmliyin miqdarı - 12,4%, külün miqdarı - 0,60%, metal qarışıqların miqdarı - 2,11 mq/kq, turşuluğun miqdarı isə 2,36° olmuşdur.

**Summary:** The article is devoted to the study of the chemical composition of groats and groats products sold in the trade network of our republic, as well as the organoleptic and physico-chemical quality indicators of these products. During the organoleptic assessment, the crunchiness, taste, smell and appearance of split and split products were determined. The results of analyzes of different types of split and split products showed that their organoleptic quality indicators correspond to the requirements of the current standards (GOST 7022-97, GOST 5784-60, GOST 6292-93, GOST 3034-75, GOST 276-60) and this There are no specific cases of deviation from the requirements. During the physical-chemical evaluation, the amount of ash, moisture content, acidity content and the amount of metal mixtures were determined in the grain and grain products. The results of the physico-chemical examination of various types of groats and groat products (wheat, rice, velamir groats) showed that the amount of moisture in the "T" brand of wheat groats was 13.5%, the amount of ash was 0.58%, the amount of metal mixtures amount - 2.11 mg/kg, amount of acidity - 2.13 °, amount of moisture in brand "M" - 14.0%, amount of ash - 0.55%, amount of metal mixtures - 2.01 mg/kg, amount of acidity - 2.13°, the amount of moisture in the "MT" brand - 14.6%, the amount of ash - 0.58%, the amount of metal mixtures - 1.96 mg/kg, the amount of acidity - 2.25°, the amount of moisture in rice groats - 12.5%, the amount of ash - 0.58%, the amount of metal mixtures - 1.80 mg/kg, the amount of acidity - 2.31°, the amount of moisture in velamir - 12.4%, the amount of ash - 0.60%, metal the amount of mixtures - 2.11 mg/kg, and the amount of acidity was 2.36°.

**Açar sözlər:** yarma və yarma məhsulları, qidalılıq dəyəri, kimyəvi tərkibi,oqranoleptik üsul, fiziki-kimyəvi üsul.

**Keywords:** splitting and splitting products, nutritional value, chemical composition, ogranoleptic method, physico-chemical method.

**Giriş.** Bildiyimiz kimi hazırda respublikamıza dünyanın bir çox ölkələrindən müxtəlif çeşidli ərzaq məhsulları, o cümlədən yarma və yarma məhsulları gətirilərək realizə edilir. Gətirilən bu yarma və yarma məhsullarının əhalinin sürətlə artmaqda olan gündəlik tələbatımızı ödəməklə yanaşı olaraq həmçinin keyfiyyətli və insan orqanizmi üçün zərərsiz olmalıdır. Məhz bu baxımdan respublikamıza gətirilən və istehsal olunan ərzaq məhsullarına, o cümlədən yarma və yarma məhsullarının keyfiyyətinə nəzarət artırılmaqla yanaşı, həmçinin onların zərərsizliyinə xüsusi diqqət yetirilməlidir.

Məhz buna görə də aparılan tədqiqat işinin əsas məqsədi respublikamızın ticarət şəbəkəsində realizə olunan yarma və yarma məhsullarının istehlak xassələri və keyfiyyət göstəricilərinin tədqiqinə həsr olunmuşdur.

**Mövzunun aktuallığı.** Hazırda yeyinti sənayesinin ən mühüm sahələrindən biri də yarma və yarma məhsullarıdır. Yarma və yarma məhsulları insanların qida rasionunun əsasını təşkil edən ərzaq məhsullarıdır. Yarma və yarma məhsulları müxtəlif növ dənli bitkilərin emalı prosesi nəticəsində alınan qida məhsuludur. Yarma və yarma məhsulları bir sıra xüsusiyyətlərinə görə digər ərzaq məhsullarından fərqlənirlər. Belə ki, yarma və yarma məhsulları digər qida məhsullarından uzun müddət saxlanmaya, daşınmaya davamlı olması, həmçinin keyfiiyyətinə və qidalılıq dəyərinə görə fərqlənirlər.

Qida məhsullarının, o cümlədən yarma və yarma məhsullarının enerji və qidalılıq dəyərliyi əsasən onların emalı üsullarından, kimyəvi tərkibindən asılıdır.Həmçinin yarma və yarma məhsulları digər məhsullardan tərkibində nişasta, mineral maddələrlə, yağla, əvəzedilməz aminturşularla və triqliseridlərlə zəngin olması ilə fərqlənirlər. Yarma və yarma məhsullarının kimyəvi tərkibi və enerji dəyərliliyi haqqında aşağıda qeyd edilən 1 saylı cədvəldə ətraflı məlumat verilmişdir.

**Cədvəl 1.** Yarma və yarma məhsullarının kimyəvi tərkibi və enerji dəyərliyi.

| **Yarma və yarma məhsulların növləri** | **Şəkər** | **Kül** | **Yağ** | **Azotlu maddə** | **Sellüloza** | **Nişasta** | **Enerji dəyərliyi 100 q-la** |
|---|---|---|---|---|---|---|---|
| Qarğıdalı | 1,6 | 0,8 | 2,1 | 10,0 | 1,3 | 85,0 | 325 |
| Arpa | 0,6 | 1,16 | 1,2 | 9,0 | 1,25 | 86,0 | 325 |
| Darı | 0,16 | 1,4 | 2,5 | 11,6 | 0,66 | 83,4 | 330 |
| Düyü | 0,6 | 0,7 | 0,6 | 6,0 | 0,30 | 88,0 | 327 |
| Qarabaşaq | 0,30 | 2,12 | 2,1 | 12,0 | 2,00 | 82,0 | 325 |
| Vələmir | 0,26 | 2,26 | 6,0 | 16,0 | 2,85 | 72,0 | 352 |
| Noxud | 0,32 | 2,41 | 2,6 | 26,0 | 2,20 | 66,2 | 330 |
| Mannı | 0,97 | 0,55 | 0,9 | 12,8 | 0,25 | 84,2 | 333 |

Cədvəldə göründüyü kimi digər yarma növləri ilə müqayisədə paxlalı, düyü və qarabaşaq dənlərinin yarmalarının tərkibində dəyərli aminturşuları ilə zəngin olan zülallar vardır. Məhz bu zülallar yarmaların qidalılıq dəyərini daha da artmasına səbəb olur.Lakin bütün yarma növlərində nişasta və azotlu maddələr üstünlük təşkil edirlər. Yarma və yarma məhsullarının tərkibində digər maddələrlə müqayisədə şəkər və sellüloza azlıq təşkil edir. Belə ki, cədvəldə göründüyü kimi şəkərin miqdarı 0,6-1,6 %, sellülozanın miqdarı isə 0,30-2,85 % arasında dəyişir. Qeyd etmək lazımdır ki, yarmalarda şəkər əsasən xörəyin dadına təsir etdiyi halda, sellüloza isə yarmaların həzm olunmasına və kulinariya xüsusiyyətinə təsir etmə qabiliyyətinə malikdir (Əhmədov Ə.İ., Musayev N.X. 2005; Əliyev M. T., Musayev N.X. 1999).

Yarma və yarma məhsulları arasında yüksək qidalılıq dəyərinə malik olan yarma mannı yarması hesab olunur. Bu yarmanın belə yüksək dəyərliyə malik olması onun tərkib xüsusiyyətindən asılıdır. Belə ki, mannı yarmasının tərkibində 0,97 % - şəkər, 0,55 % - kül , 0,25 % - sellüloza, 0,9 % - yağ, 12,8 % - azotlu maddə və 82,2 % - nişasta vardır. Müəyyən olunmuşdur ki, 100 q mannı yarması – 333 k/kal enerjivermə qabiliyyətinə malikdir. Həmçinin mannı yarmasının tərkibində $B_1$- vitamini – 1 mq, $B_2$ – vitamini 0,5 mq və PP -10 mq vitamini vardır ( Салуп И.П. и др. М.; Экономика 1981).

Əhali tərəfindən geniş istifadə olunan yarmalardan biri də cilalanmış buğda yarmasıdır. Bu yarma xüsusi kimyəvi tərkib xüsusiyyəti ilə xarakterizə olunur. Belə ki, bu yarmanın tərkibində 2-3% -

şəkər, 1-1,6% - yağ, 0,3-0,5% - sellüloza, 0,9-1,16% - kül, 13-15% - yağ, 75-77% - nişasta vardır. Həmçinin bu yarmanın tərkibində 4 mq-$B_1$, 1,5 mq-$B_2$, 15 mq-PP vitaminləri, karotin və biotin vardır.

Buğda yarmasının tərkibində eyni zamanda 5 makro və mikroelementlər vardır. Müəyyən olunmuşdur ki, 100 qram buğda yarması – 300 kkal enerjivermə qabiliyyətinə malikdir (Əhmədov Ə.İ., Musayev N.X. 2005).

Hazırda yüksək qidalılıq dəyərinə malik yarmalardan biri də düyü yarmasıdır. Bu yarmanın qidalılıq dəyəri onun kimyəvi tərkibi xarakterizə olunur. Düyü yarmasının tərkibində orta hesabla 0,4 – 0.5 % - kül, 0,5 – 0.6 % - yağ, 0.19 – 0.41 % - sellüloza, 8 – 11 %- zülal, 3,0 %- karbohidrat və 83 – 87 %-ə qədər nişasta vardır. Bununla yanaşı olaraq bu yarmanın tərkibində həmçinin 0,3 mq / kq – $B_2$, 20 mq / kq PP və 0.8 mq / kq – $B_1$ vitaminləri vardır (Казаков Е. Д., Кретович В. Л. 1981).

Yüksək qidalılıq dəyərinə malik yarmalardan biri də arpa yarmasıdır. Arpa yarmasının əsas tərkib hissəsi bir sıra dəyərli maddələrdən ibarətdir. Belə ki, arpa yarmasının tərkibində 1,0 – 1,7 % - kül, 2,4 – 3,5 % - penzolar, 0,8 – 1,9 % - sellüloza, 1,2 – 1.7 % - yağ, 2,1 – 3,2 % - şəkər, 73 – 78 % - nişasta, 14 – 15 % - zülal vardır. Həmçinin bu yarmanın tərkibində bir sıra vitaminlər də vardır. Belə vitaminlərdən $B_1$ – 2,5 mq / kq, $B_2$ – 0,9 – 1,0 mq / kq və PP – 22 mq / kq göstərmək olar. Bununla yanaşı olaraq bu yarmanın tərkibində mis, sink, flor, manqan, 3 mq % - dəmir və brom vardır. Müəyyən olunmuşdur ki, 100 qram arpa yarması 300 kkal enerjivermə qabiliyyətinə malikdir (Əhmədov Ə.İ., Musayev N.X. 2005; Əliyev M. T., Musayev N.X 1999).

Əhali tərəfindən istifadə olunan yarmalardan biri də qarğıdalı yarmasıdır. Bu yarma kimyəvi tərkibinə görə 0,4 – 0,8 % - sellüloza, 1,6 – 2,5 % - yağ, 1,9 – 2,0 % - şəkər, 82 – 83 % - nişasta, 9 – 12 % - zülallardan ibarətdir. Həmçinin bu yarmanın tərkibində $B_1$ – 1,5 mq / kq, $B_2$ – 0,7 - 0,9 mq / kq və PP – 6 - 10 mq / kq vitaminləri vardır (Əliyev M. T., Musayev N.X. 1999 ; Салуп И.П. и др. 1981).

Yüksək bioloji dəyərliliyə malik yarmalardan biri də darı yarmasıdır. Bu yarma qida rasionumuzda xüsusi əhəmiyyətə malik olmasına baxmayaraq, onların tərkibind' olan zülallar az dəyərli zülallar hesab olunur. Darı yarmasının tərkibində 1,1 – 1,5 % - kül, 0,6 – 0,8 % - sellüloza, 2,7 – 3,7 % - yağ və 2 % - şəkər vardır. Həmçinin bu yarmanın tərkibində $B_1$ – 4 mq / kq, $B_2$ – 0.6 – 1 mq / kq , 10 – 12 mq / kq – PP vitaminləri vardır.

Hazırda əhali tərəfindən istifadə olunan yarmalardan biri də qarabaşaq yarmasıdır. Bu yarma digər yarmalardan yüksək qidalılıq dəyərliyi ilə xarakterizə olunur. Bu yarmanın yüksək dəyərliliyə malik olması əsasən onun tərkib xüsusiyyətindən asılıdır. Belə ki, bu yarmanın tərkibində 2,6 – 3 % - yağ, 2,3 % - şəkər, 70 – 71 % - nişasta, 13 – 16 % - zülal, 2 % -ə qədər mineral maddələr vardır. Qarabaşaq yarmasının tərkibində olan zülalların çox hissəsi albumin, qlobulin və aminturşularından ibarətdir. Həmçinin bu yarmanın tərkibində bir sıra dəyərli vitaminlər vardır. Belə vitaminlərdən $B_1$ – 6,0 mq %, $B_2$ – 2,0 mq %, PP – 60 mq % və mikroelementlər isə P - 150 mq % və Ca – 200 mq % göstərmək olar (Салуп И.П. и др. 1981 ; Казаков Е. Д., Кретович В. Л. 1981).

Hazırda geniş realizə olunan yarmalardan biri də vələmir yarmasıdır. Bu yarmanın qidalılıq dəyərliyi onun kimyəvi tərkib xüsusiyyətlərindən asılıdır. Belə ki, bu yarmanın tərkibində 1,6 – 2,5 % - kül, 2 % - pektin, 2 % - lesitin, 6 – 8 % - yağ, 60 – 65 % - nişasta və 12 – 16 % - zülal vardır. Həmçinin bu yarmanın tərkibində $B_1$ - 5 mq / kq, $B_2$ – 1,5 mq / kq və PP – 6 – 22 mq / kq vitaminləri vardır. Bu yarmanın əsasını təşkil edən zülal 15 – 20 % prolamin – avenin, 16 – 25 % - avenalin, 18 – 19 % albumin və 40 % - qlütelindən ibarətdir. Zülalın mənimsəmə qabiliyyəti - 70 %, yağ – 85 % və karbohidratın isə 95 % təşkil edir.

Yarma və yarma məhsulları arasında əhali tərəfindən istifadə olunan və yüksək qidalılıq dəyərinə malik yarmalardan biri də qarğıdalı yarmasıdır. Qarğıdalı yarmaları - ağ və sarı dənli bərk qarğıdalıdan, ağ dənli dişformalı qarğıdalıdan və partlayan sortlardan hazırlanır. Qarğıdalı yarması cilalanmış olmaqla 5 növdə buraxılır. Qarğıdalı yarmasından kotletlər, sıyıq və digər kulinariya məhsulları hazırlanır.

Qarğıdalı lopası istehsal etmək üçün xırda və iri bütöv qarğıdalı yarması əldə edilir. Qarğıdalı lopasını hazırladıqda qarğıdalı təmizlənir, isladılır, rüşeymi ayrılaraq xırdalanır, sonra bunlar su, səməni екstrакtı, şəkər və duzdan ibarət olan şirədə bişirilir, qurudulur, buxara verilir, səthi hamar vallardan кeçirilib yastılaşdırılır və qovrulur. Qarğıdalı lopaları zülal, vitamin və minerallarla zəngindir. Qarğıdalı lopaları yalnız çox sağlam bir məhsul deyil, həm də pəhriz zamanı böyük köməkdir, onlar aşağı kalorili yeməyin əsasına çevrilə bilir. Lopa 3 sadə inqrediyentdən hazırlanır:

üzvi qarğıdalı, üzvi meyvə şirəsi konsentratı və dəniz duzu. Hər porsiyada cəmi 2 q şəkər var. Qarğıdalı lopaları tərkibinə görə (lif, amin turşulan, pektinlər, qlutamik turşu) əhval-ruhiyyəni yaxşılaşdırmağa kömək edir. Həmçinin beynin metabolik proseslərini sürətləndirir və yaddaşı yaxşılaşdırır, əzələ toxumasını və sinir hüceyrələrini gücləndirir, mədə-bağırsaq traktının fəaliyyətini yaxşılaşdırır. Buna görə də, qarğıdalı lopaları balanslaşdırılmış pəhriz qidası hesab olunur, o, uşaqların, vegetarianların və diabetli insanların pəhrizinə daxil edilə bilər.

Qarğıdalıdan partladılmış dən hazırladıqda qarğıdalı təmizlənir, rüşeymi ayrılır və xüsusi aparatlarda (qazanlarda) təzyiq altında qovrulur. Qazanın qapağı dərhal açılır və dənin daxilindəki boşluqlarda olan təzyiqlə, ətraf mühitin təzyiqi arasındakı fərq nəticəsində dənlər partlamağa başlayır. Dənin həcmi 4-6 dəfə genişlənir, yumşaq pambığaoxşar quruluşa malik olur. Şəkərlə emal olunmuş qarğıdalı lopaları və havalı qarğıdalı kökəlməyə meyilli və şəkərli diabet xəstəliyi olanlar üçün qətiyyən məsləhət görülmür.

Saqo demək olar ki, təmiz nişastadır, bir növ karbohidratdır. Saqo yarması yapışqanlaşdırılmış nişastanın xırda dənəciklərindən ibarətdir. Saqo bəzi tropik palmaların gövdələrinin öz ağacından çıxarılan bir nişasta növüdür. Yüksək qidalı və asanlıqla həzm olunan yeyinti məhsuludur. Qlütensizdir və taxılsız pəhriz saxlayanlar üçün uyğundur. Saqo su ilə qarışdırılaraq yeyilə bilər, çörəkçilikdə un kimi istifadə edilə bilər. Saqo ölçülərinə görə iki nömrədə, keyfiyyətindən asılı olaraq əla və 1-ci sort buraxılır.

**Tədqiqatın məqsədi.** Yarma və yarma məhsullarının istehlak xassələrini və keyfiyyət göstəricilərinin qiymətləndirilməsi zamanı iki əsas metoddan: orqanoleptiki və fiziki-kimyəvi istifadə olunmuşdur. Orqanoleptiki metoddan istifadə etməklə yarma və yarma məhsullarının dadı, iyi, diş altında xırçıltısı və xarici görünüşü müəyyən olunmuşdur. Fiziki-kimyəvi metodla yarma və yarma məhsullarında külün miqdarı, nəmliyi miqdarı, turşuluğun miqdarı və metal qarışıqlarının miqdarı təyin olunmuşdur.

**Nəticə**

Hazırda respublikamızın ticarət şəbəkəsində realizə olunan yarma və yarma məhsullarının istehlak xassələri və keyfiyyət göstəricilərinin tədqiqi zamanı bir sıra nəticələrə nail olunmuşdur. Bu nəticə aşağıdakılardan ibarətdir :

**1.** Yarma və yarma məhsulları üzərində aparılan qiymətləndirmədən alınan nəticələr göstərdi ki, bu məhsulların orqanoleptiki keyfiyyət göstəriciləri (QOST 5551 – 75 ; QOST 21150 – 80 ; QOST 6293 – 94 ; QOST 3035 – 76 ; QOST 7023 – 98 ; QOST 5785 – 61 ; QOST 277 – 61) tələblərinə uyğundur və bu standartlardan fərqli olaraq kənarlaşmalar müşahidə olunmamışdır.

**2.** Yarma və yarma məhsullarının xarakterik növü olan buğda yarmasının mannı yarması üzərindən aparınlan qiymətləndirmələrdən alınan nəticələr göstərdi ki, bu yarmada nəmlik – 15,4 %, külün miqdarı – 0,65 %, turşuluğun miqdarı 2,32 %, metal qarışıqların miqdarı isə 1,98 % olmuşdur.

**3.** Yarma və yarma məhsullarının digər bir növü olan düyü yarması üzərində aparılan qiymətləndirmələrdən alınan nəticələr göstərdi ki, yarmanın bu növündə nəmliyin miqadarı – 15,2%, külün miqdarı – 0,68 %, turşuluğun miqdarı – 2,4 %, metal qarışıqlarının miqdarı 1,94 % olmuşdur.

**4.** Yarma və yarma məhsullarının daha bir növü olan qarabaşaq yarması üzərində aparılan qiymətləndirmədən alınan nəticələr göstərdi ki, yarmanın bu növündə nəmliyin miqdarı – 15,0 %, külün miqdarı – 0,60 %, turşuluğun miqdarı – 2,0 %, metal qarışıqların miqdarı isə - 1,90 % olmuşdur.

**ƏDƏBİYYAT**

**1.** Əhmədov Ə.İ., Musayev N.X. "Ərzaq mallarının ekspertizası". Bakı, Çaşoğlu, 2005 – 568 s.

**2.** Əliyev M. T., Musayev N.X. "Taxıl, un, qənnadı məhsullarının əmtəəşünaslığı və keyfiyyətinin ekspertizası". Bakı, Çaşoğlu, 1999 – 532 s.

**3.** Салуп И.П. и др. Товароведение зерномучных и кондитерских товаров. М.; Экономика 1981 - 158 с.

**4.** Казаков Е. Д., Кретович В. Л. Биохимия зерна и продуктов его переработки. М.; "Агропромиздать", 1981,-216 с.

**5.** Семененко С.В. Экспертиза товаров. Белгород: БУПК, 1999.- 298 с.

# NADİR VƏ NƏSLİ KƏSİLMƏKDƏ OLAN ŞUŞA VƏLƏSİNİN (*CARPINUS SCHUSCHAENSIS* H. WINKL.) İNKİŞAFININ HİRKAN FLORASINDA DENDROXRONOLOJİ ÜSULLARLA TƏDQİQİ

**AYDAN AĞAMALIYEVA*, SAMİRƏ BAĞIROVA, ŞƏNAY ALBALIYEVA**

*Bakı Şəhər İcra Hakimiyyəti Başçısının tabeliyində Dendrologiya bağı Publik hüquqi şəxs, Mərdəkan qəs.S.Yesenin 277*
*aydan_rasulova@list.ru*
Bakı, Azərbaycan

**XÜLASƏ**

İnsanın düşünülməmiş təsərrüfat fəaliyyəti nəticəsində bioloji müxtəliflik deqradasiyaya uğramış, dəyişilmiş, növlərin arealı kiçilmişdir. 90-cı illərin məlum hadisələri, enerji çatışmamazlığı, antropogen və s. amillərin təsiri nəticəsində bir çox bitki növləri məhv olma təhlükəsinə məruz qalmış, arealları kiçilmişdir. Aparılan müşahidələr göstərmişdir ki, Azərbaycan florasında olan nadir və nəsli kəsilməkdə olan oduncaqlı bitki növlərinin areallarının bir hissəsinin mühafizə strategiyası yoxdur. Nadir bitki növlərinin sayının getdikcə artması, nəsli kəsilməkdə olan bitkilərin sayının azalması ilə əlaqədar bu problemlərin səbəblərini aşkar edərək, onun qarşısının alınması dövlət strukturlarının və elmi müəssisələrin qarşısında duran aktual məsələlərdən biridir. Bitki örtüyünün bioloji müxtəlifliyinin pozulması və ya məhv edilməsi ilə əlaqədar respublikamızın bəzi regionlarında müasir bitki örtüyünün biomüxtəlifliyi müasir iqlimə uyğun gəlmir. Elmi-tədqiqat işinin əsas məqsədi Azərbaycanın təbii və mədəni florasında olan nadir növlərin populyasiyalarında baş verən proseslərin biometrik analizi, dendroxronoloji təhlili, nadir və nəslikəsilməkdə olan növlərin yayıldığı ərazilərin monitorinqi, həmin ekosistemlərin qiymətləndirilməsi və mühafizəsi məqsədi ilə tədbirlər planının işlənib hazırlanmasıdır. Bütün bunları nəzərə alaraq ekoloji təhlükəsizliyin qorunması üzərində nəzarətin möhkəmləndirilməsi və bu kimi digər istiqamətlərdə kompleks işlərin görülməsi nəzərdə tutulmalıdır. Məqalədə Hirkan florasından nümunə götürülmüş yaşlı Şuşa vələsi növü üzərində tədqiqatlar aparılmışdır.Tədqiqat işində müasir avadanlıqlardan istifadə olunmuşdur. Müasir üsullarla Şuşa vələsinin yaşı, inkişaf dinamikası və iqlim amillərinin növə təsiri öyrənilmişdir.

**AÇAR SÖZLƏR: hirkan florası, dendroxronologiya, edifikator, carpinus schuschaensis h. Winkl. – şuşa vələsi. Radial artım**

As a result of thoughtless human economic activity, biodiversity was degraded, changed, and the range of species was reduced. Known events of the 90s, energy shortages, anthropogenic factors and as a result of the impact of other factors, many species of plants are threatened with extinction, their range has been decreased. The observations have shown that there is no protection strategy for part of the areas of the rare and endangered species of woody plants in the flora of Azerbaijan. Due to the increasing number of rare plant species and the decrease in the number of endangered plants, finding out the causes of these problems and preventing them is one of the urgent issues facing state structures and scientific institutions.Due to the violation or destruction of biological diversity of vegetation in some regions of the country, the BM of modern vegetation does not correspond to the modern climate. The main purpose of the research is to develop a plan of action to biometric analysis of processes occurring in the populations of rare species in the natural and cultural flora of Azerbaijan, dendrochronological analysis, monitoring of habitats of rare and endangered species, assessment and protection of these ecosystems. In this regard, it is necessary to strengthen control over the protection of environmental safety and conduct complex works in other similar areas. The article conducts research on the old *Carpinus schuschaensis* H. Winkl. species sampled from Girkan flora. İn the research was used modern equipment. The age, developmental dynamics and influence of species on climatic factors have been studied by modern methods.

**Keywords: flora of Girkan, dendrochronology, edificatory, carpinus schuschaensis H. Winkl. radial growth**

## GIRIŞ

Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 24 mart tarixli 1368 nömrəli Sərəncamı ilə 2006-2010-cu illəri əhatə edən "Azərbaycan Respublikasında bioloji müxtəlifliyin qorunması və davamlı istifadəsinə dair Milli Strategiya və Fəaliyyət Planı"nda, bioloji müxtəlifliyin qorunmasına və davamlı istifadəsinə dair 2017-2020-ci illər üçün "Milli Strategiya"da respublikamızda nadir bitkilərin repatriasiyası, genefondun qorunub saxlanılması, flora biomüxtəlifliyin artırılması, ekoloji tarazlığın bərpası, insan amilinin ətraf mühitə təsirinin azaldılması, xüsusi mühafizə olunan təbiət ərazilərində elmi-tədqiqat işlərinin aparılması üçün lazımı şəraitin yaradılması kimi mühüm məsələlər öz əksini tapmışdır.

Aparılan müşahidələr göstərmişdir ki, Azərbaycan florasında olan nadir və nəsli kəsilməkdə olan oduncaqlı bitki növlərinin areallarının bir hissəsinin mühafizə strategiyası yoxdur. Nadir bitki növlərinin sayının getdikcə artması, nəsli kəsilməkdə olan bitkilərin sayının azalması ilə əlaqədar bu problemlərin səbəblərini aşkar edərək, onun qarşısının alınması dövlət strukturlarının və elmi müəssisələrin qarşısında duran aktual məsələlərdən biridir. Tədqiqatlardan məlum olmuşdur ki, floramızda olan bir çox növlərin nəsli kəsilmək üzrədir və belə növlərin təbiətdə qorunub saxlanması üçün bir sıra tədbirlərin həyata keçirilməsi vacibdir. Bu məqsədlə yaradılan milli parklar, qoruqlar, yasaqlıqlar bitkilərin mühafizə olunmasında böyük əhəmiyyət kəsb edir. Azərbaycanın relikt, endemik, nadir və nəsli kəsilməkdə olan bitkilərinin qoruması məqsədilə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə 2004-cü ilin 9 fevral tarixində Hirkan Milli Parkı yaradılmışdır. Milli Parkın yaradılmasında əsas məqsəd həmin ərazidə təbiətin kompleks şəkildə qorunması, Üçüncü dövrün relikt və endemik bitki növlərinin mühafizəsi, Azərbaycan Respublikasının "Qırmızı Kitabı"na daxil edilmiş tipik flora və fauna növlərinin qorunub saxlanılmasıdır. Bu məqsədlə nadir və nəsli kəsilməkdə olan bitkilərdən biri Şuşa vələsi üzərində tədqiqatlar aparılmışdır. Tədqiqat işinin əsas məqsədi yaşlı növləri müəyyən edib, iqlim amillərinin bitkinin inkişafına təsirini öyrənmək, inkişafı azalan fərdlərdə problemin həlli yollarını tapmaqdır. Bunun üçün dendroxronologiya elmi xüsusi rol oynayır. İllik halqalara əsasən ağacın yaşını və ağacda baş verən dəyişkənlikləri öyrənən elm dendroxronologiya adlanır. (dendro-ağac, xronos-halqa, loqos-elm ). Bu elm sahəsində müasir avadanlıqlardan, proqramlardan istifadə olunur. Xüsusi dendroxronoloji təchizatların köməyi ilə planetin iqlim dəyişməsini müəyyən etmək olar. Bu avadanlıqların üstünlüyü ondadır ki, ağaca minimal xəsarət yetirməklə ağacın inkişafı haqqında məlumatlar əldə etmək mümkündür. Tədqiqat işi üçün sahə Hirkan Milli Parkı olaraq götürülmüşdür.

Hirkan Milli Parkı Azərbaycanın cənubi-şərqində, Lənkəran və Astara inzibati rayonlarının ərazisində yerləşir. Hirkan Milli Parkı 2004 –cü il 9 fevral tarixində yaradılmış, parkın ərazisi 2008-ci ildə 13.037 hektar genişləndirilərək 29.760 hektardan 42.797 hektara çatdırılmışdır. Respublikada ərazi böyüklüyünə görə 4-cü yerdədir. Hirkan Milli Parkın ərazisi Lənkəran və Astara meşə təsərrüfatlarının torpaqları hesabına yaradılmışdır. Yer quruluşuna görə bunlar düzən və dağ hissələrinə ayrılır. Milli Parkın düzən hissəsi 91 ha təşkil edir, bu ümumiyyətlə Talış zonasında qorunub saxlanılmış yeganə Hirkan tipli meşədir.Ərazi dəniz səviyyəsindən 21,4 m aşağıda yerləşir, üçüncü dövr relikt bitkilərlə zəngindir.Buranın ərazisi müxtəlif landşaft –iqlim şəraitinin çoxluğu ilə səciyyəvidir. Hirkan Milli Parkının ərazisinin kiçik olmasına baxmayaraq çox müxtəlif torpaq səthinə malikdir. Bu müxtəliflik makro, mezo və mikrorelyefə malik olan torpaqəmələgətirən süxurların və yerli iqlimin xüsusiyyətlərindən, həmçinin bitkilərin təkamülündən bilavasitə asılıdır. Milli parkın torpaqları özünün müxtəlifliyinə görə əsasən aşağıdakı rayonlara ayrılır.

1)aşağı torpaq rayonuna aid sarı (açıq və tünd) podzollu torpaqlar

2) mərkəzi torpaq rayonuna aid olan sarı (boz və qəhvəyi) tündrəngli və açıqrəngli meşə torpaqları

3) yuxarı torpaq rayonuna aid olan qonur meşə və podzollu torpaqlar.

Burada tədqiqat obyekti kimi *Carpinus schuschaensis* H. Winkl. – Şuşa vələsi götürülmüşdür.

*Carpinus schuschaensis* H. Winkl. – Şuşa vələsi Iranın şimal-qərb hissəsində yayılmışdır. Alçaqboylu ağac və ya iri koldur. Ilk dəfə Azərbaycanda Şuşa rayonu meşələrindən təsvir edilmişdir. Yamaclarda yayılmış Şuşa vələsinin arealı geniş deyildir. Azərbaycanda Talış dağlarında rast gəlinir. Azərbaycanın nadir və nəsli kəsilməkdə olan bitki növüdür .Azərbaycanın "Qırmızı kitab"ına daxil edilmişdir. CR A2 abc;C1. Çox kölgəli olmayan, əhəngli və mergelli suxurlar üzərində əmələ gəlmiş torpaqlarda yaxşı bitir. Mart-aprel ayında çiçəkləyir, meyvəsi (toxumu) iyun-iyul ayında yetişməyə

başlayır. Toxum və kök pöhrələri ilə çoxalır, kəsildikdə kötükdən çoxlu pöhrə verir.Təbii ehtiyatının dəyişilməsi səbəbləri başlıca olaraq insan fəaliyyətidir. Qoruq və yasaqlıqların təşkili tövsiyə edilir[1]. Hirkan meşələrində şərq fıstığı , şabalıdyarpaq palıd, dəmirağac, vələs növləri əsas edifikatorlardır. Düzən meşə adətən 2-3 yarusdan ibarət olub: birinci yarus adətən palıd, vələs, Hirkan qovağından ibarət olur. İkinci yarus dəmirağacı, ağcaqayın, qarağac və s növlərdən ibarətdir[2].

*Cədvəl 1.Nümunənin göstəriciləri*

| Növlər | **Gövdənin diametri** | **Sahə Koordinatları** | **Nümunənin götürüldüyü ərazi və tarix** | **Ağacın yaşı** |
|---|---|---|---|---|
| ***Carpinus schuschaensis* H. Winkl. – Şuşa vələsi** | 122 sm | N $38^0$ 40,445<br>Eo 48 44,237 | Lənkəran<br>2022 | 65<br>(1956) |

Nümunələrin adı, götürülmə tarixi konteynerdə qeyd edilmiş, tədqiqat işində 10 ildən bir növün halqalarında baş vermiş dəyişikliklər haqqında məlumatlar toplanmışdır. Qeyd etmək lazımdır ki, bir qeydiyyat nöqtəsi 10, 2 nöqtə 20, 3 nöqtə 30 ilə bərabər hesablanmışdır[3].

**TƏDQIQAT METODU**

Növlərdə halqalar üzərindəki məlumatların oxunması Schweingruber metodikası əsasında aparılmışdır. Mikroskopla halqaların təyinində Cook-Kairiukstisn üsulundan, yalançı və itmiş halqaların aşkar edilməsində Rinin tətbiq etdiyi TSAPwin və Crossdating proqramından istifadə edilmişdir[5].





A)

Şəkil 1. A) Suunto burğusu vasitəsilə *Carpinus schuschaensis* H. Winkl. – Şuşa vələsi nümunənin götürülməsi B) Lintab6 binokulyar mikroskopu altında illik halqaların görünüşü

Sahədə bütün aidiyyəti məlumatların operativ əldə edilməsi məqsədilə təcrübələr *Carpinus schuschaensis* H. Winkl. – Şuşa vələsi növü üzrə yerli şəraitə uyğun qəbul edilmiş beynəlxalq tələblərə cavab verən təkmilləşdirilmiş müvafiq sistemlər əsasında həyata keçirilmişdir. Müşahidə, qeydiyyat, uçot və hesabat işləri, keyfiyyətin öyrənilməsi mövcud metodiki təlimatlara uyğun olaraq öyrənilmişdir. LINTAB6 avadanlığından və TSAPwin statistik proqramından istifadə edilməklə növlərin yaşı, iqlim amillərindən asılı olaraq inkişaf dinamikası tədqiq edilmişdir. Nümunələr "Dendroxronologiya" laboratoriyasında steril şəraitdə təmizlənilmiş, yonulmuş, mikroskopa baxış və məlumatların alınması üçün hazır vəziyyətə gətirilmişdir.

Suunto burğusu - Ağacın oduncağından nümunə götürülməsi üçün istifadə olunan burğudur.İri gövdəli ağaclardan nümunə götürülərkən 85-90 sm-lik, nisbətən kiçik ağaclardan isə 45-50 sm-lik burğulardan istifadə olunur. Suunto burğusu vasitəsi ilə şaquli sahəyə perpendikulyar olaraq ağacdan

4-5 nümunə götürülür, konteynerə yerləşdirilir, laboratoriya şəraitində qurudulur. Nümünələrdə illik halqaların sərhədlərin aydın görünməsi üçün yonularaq tədqiqə hazırlanır.

LINTAB6 cihazı üfüqi kəsiklərdə illik halqaların genişliklərini, oduncağın böyüməsini təhlil etmək üçün istifadə olunur. Alman şirkəti RINNTECH tərəfindən hazırlanmışdır. LİNTAB6 binokliyar mikroskopla və TSAPwin statistik illik halqaların təhlili proqramından istifadə etməklə təbiətdə baş vermiş qlobal dəyişikliklər haqqında məlumat alınır. Binokulyar mikroskopla alınmış illik halqaların eni ölçü şkalasına uyğun olaraq, LİNTAB6 qurğusu ilə 0,01 mm dəqiqliklə ölçülür. Növün halqalarında baş vermiş dəyişikliklər haqqında məlumatlar toplanılır.Qeyd etmək lazımdır ki, bir qeydiyyat nöqtəsi 10, 2 nöqtə 20, 3 nöqtə 30 ilə bərabər hesablanılır.TSAP-Win™- Alman şirkəti RINNTECH tərəfindən hazırlanmış proqramdır[4].

Ölçmədən ağacın illik halqalarının ardıcıllığının qiymətləndirilməsinə qədər olan bütün addımlar TSAP-Win ™ ilə əhatə olunur. Verilənlər bazası bağlantılarına qədər çox sayda qrafik və statistik funksiya TSAP-Win ™ -də mövcuddur və məlumatlarınızı idarə etməyə kömək edir. LİNTAB 6 avadanlığından alınan məlumatlar birbaşa kompyuterə ötürülür və TSAP-Win ™ proqramı vasitəsilə ağacın illik halqaları haqqında qrafiklər və cədvəllər əldə olunur. Ağacın yaşı və inkişaf dinamikası öyrənilir.




*Qrafik : Tsapwin proqramından alınan Carpinus schuschaensis H. Winkl. – Şuşa vələsi növünün inkişaf dinamikası*

**NƏTICƏ**

Ağacların böyüməsi üçün əlverişli ərazilərdə geniş illik halqalar əmələ gəlir və qonşu illər arasında böyümənin miqdarı əhəmiyyətsiz dərəcədə dəyişir, yəni ağacların böyüməsi ətraf mühit şəraitinin dəyişkənliyini əks etdirmir. Əlverişsiz şəraitdə isə böyümə halqaları dardır, genişlikləri ildən-ilə əhəmiyyətli dərəcədə dəyişir və halqa itkisi tez-tez müşahidə olunur. Belə seriyalar həssas adlanır. Ağac artımının illik dəyişkənliyi nə qədər güclü olarsa, ətraf mühit şəraitindəki dəyişikliklərin daha etibarlı göstəricisidir.

Fitosenozlarında senopopulyasiyaların monitorinqi zamanı dominantlıq təşkil edən edifikator növlərdən olan, Hirkan florası Xanbulan ərazisindən götürülən gövdəsinin diametri 122 sm olan *Carpinus schuschaensis* H. Winkl. – Şuşa vələsi növünün yaş strukturuna əsasən dendroxronoloji təhlili zamanı, dendroxronoloji tarixi-tətbiqləndirmə əsasında illik halqaların sayına görə növün yaşı təyin edilmiş, 65 yaşlı olduğu müəyyənləşdirilmiş, inkişaf dinamikası verilmişdir (Cədvəl 1). Növdə 35, 57, 59, yaşlarında yəni 1991, 2013, 1970, 2015-ci illərdə yüksək radial artım müşahidə olunmuşdur. Növdə inkişafa başladığı ilk dövrlərdə, yuvenil və reproduktiv dövrlərdə senil dövrlə müqayisədə inkişaf daha yaxşı getmişdir. 12, 20, 32, 40, 55 yaşlarında, yəni, 1968,1976, 1988, 1996, cu illərdə inkişafı aşağı düşmüşdür. Buna baxmayaraq növün inkişafı hal-hazırkı illərdə normal qiymətləndirilir.(Qrafik 1).

Artan antropogen təsirlər (kənd təsərrüfatında əkinçilik və heyvandarlığın inkişafı, dağ-mədən sənayesinin genişlənməsi, yeni yaşayış məntəqələrinin salınması, neft-qaz kəmərlərinin çəkilməsi) və kəskin iqlim dəyişikliklərinin intensivliyi (quraqlıq, sel, daşqın, leysan, yanğın, fırtına və s.) fonunda təbii ekosistemlər ciddi deqrodasiyaya uğramışdır. Qeyd olunan amillər digər ekosistemlərlə yanaşı meşə ekosistemlərinə də təsirsiz ötüşməmişdir. Belə ki, meşələrin sahəsi kiçilir, doluluq, sıxlıq və bonitet aşağı düşərək məhsuldarlıq azalır, təbii bərpa zəifləyir, az qiymətli cinslərlə əvəzolunma sürətlənir, meşə döşənəyi, ölü örtük deqrodasiya olunaraq meşə tipi dəyişir, kserofit və mezofit növlərin dominatlığı başlayaraq, bəzi ağac və kollar nadir və nəsli kəsilmək həddinə çatır. Bütün bunları nəzərə alaraq təbii ehtiyatlardan daha səmərəli istifadə, ekoloji təhlükəsizliyin qorunması üzərində nəzarətin möhkəmləndirilməsi və bu kimi digər istiqamətlərdə kompleks işlərin görülməsi nəzərdə tutulmalıdır. Bunun üçün nadir və nəsli kəsilməkdə olan bitkilər yenidən işlənilməli və "Qırmızı kitaba" salınmalıdır.

**ƏDƏBIYYAT SIYAHISI**

1. T.S.Məmmədov, E.O.İsgəndər, T.H.Talıbov. Azərbaycanın Nadir Ağac Və Kol Bitkiləri. Bakı «Elm» 2016, 116 S.

2. H.M.Səfərov, V.S.Fərzəliyev."Hirkan Milli Parkının Florası Və Bitki Örtüyü" 295 S.

3. F.Garcia, Campelo-Gonzalez I., Nabais C., Detrender-A Graphical.User İnterface To Process And Visualize Tree-Ring Data Using R.2012, Dendrochronologia 30, P.57-60

4. F.H. Schweingruber Tree Rings And Evaronment Dendrochronology// D.Reidel Bern, Stutgard, Wenna, Paul Haupt, 1996, Pp 609

5. Rinn F. Tsap. Version 3.0 Reference Manual Computer Program for Time Series Analysis and Presentation Copyright Frank Rindistrubution, Heidelberg, Germany, 1996, 246 P.

# HUMUSUN ANTROPOGEN TƏSIRDƏ DƏYIŞMƏSININ COĞRAFIYA İNFORMASIYA SISTEMLƏRININ TƏTBIQI ILƏ ÖYRƏNILMƏSI
# STUDYING THE CHANGE OF HUMS UNDER ANTHROPOGENIC IMPACT USING GEOGRAPHIC INFORMATION SYSTEMS

**AĞABƏY IBRAHIMLI**
Bakı Mühəndislik Universiteti
Memarlıq və İnşaat Fakültəsi
*ibrahimliagabey@gmail.com*
XIRDALAN, AZƏRBAYCAN

**XÜLASƏ**

Məqalədə Xaçmaz rayonu ərəblər kəndində yerləşən 600 ha quru-çöl ərazisində yerləşən kompleks dağ-şabalıdı torpaqlarının humus profilləri təhlil edilir. Tədqiqat göstərdi ki, humus profilinin xüsusiyyətləri həm dərinlik aspektləri, həm də sahəvi mövqe ilə müəyyən edilir. Humus profilləri torpağın morfologiyasında ifadə edilməsə belə, torpağın əmələ gəlməsi və fəaliyyətinin bütün ekoloji dəyişikliklərini özündə əks etdirir. Tədqiqat zamanı əldə edilən materiallar dərinlik qrunt davranışının uzunmüddətli monitorinqi və dəyişən mühitdə yerli torpaq dəyişkənliyinin aşkar edilməsi üçün əsas ola bilər. Torpaqların dərindən şumlanması və yumşaldılması su və qidalanma rejimini yaxşılaşdırır, arid əkinçilik üçün yaxşı şərait yaradır. 30 sm-ə qədər dərin payız şumlanması ilə çöküntü və yaz ərimə sularının yığılması yazda utilizasiya ilə müqayisədə 1200-1500 $m^3$/ha daha çox olur. Dərin şumlama suvarma suyunun udulmasını təmin edir, suvarma zamanı axıntıları aradan qaldırır və əlavə suvarma tələb edən məhsulların sayını azaldır. Böyük miqyasda torpağın üzvi maddəsi haqqında məlumatın olmamasının ən çox rast gəlinən səbəblərindən biri odur ki, torpaq nümunələrinin götürülməsi onun laboratoriyada müəyyən edilməsi vaxt aparan və baha başa gələ bilər. Xoşbəxtlikdən, məsafədən zondlama Coğrafi İnformasiya Sistemlərinin (CİS) istifadəsi ilə birlikdə müxtəlif biofiziki amillərin müəyyən edilməsinə və səciyyələndirilməsinə, onların təhlilinə və aşağı qiymətə monitorinqinə imkan verən güclü resurs hesab olunur. Bu alətlər və proqnozlaşdırıcı modelləşdirmə məkan-zaman məlumatı yaratmaq və torpaq və bitki örtüyünün nümunələrini, xassələrini və proseslərini təsvir etmək üçün səmərəli alternativ üsullar hesab olunur.

**ABSTRACT**

The article analyzes the humus profiles of the complex mountain-chestnut soils located in the 600 ha dry-desert area located in the village of Arabler, Khachmaz region. The study showed that the characteristics of the humus profile are determined by both depth aspects and areal position. Humus profiles reflect all environmental changes in soil formation and functioning, even if not expressed in soil morphology. The materials obtained during the research can be the basis for long-term monitoring of deep soil behavior and detection of local soil variability in a changing environment. Deep plowing and softening of the soil improves the water and nutrient regime, creating good conditions for dry farming. With deep autumn plowing up to 30 cm, accumulation of sediment and spring melt water is 1200-1500 $m^3$/ha more than with disposal in spring. Deep plowing ensures absorption of irrigation water, eliminates runoff during irrigation and reduces the number of crops that require additional irrigation. One of the most common reasons for the lack of data on soil organic matter on a large scale is that soil sampling can be time-consuming and expensive to determine in the laboratory. Fortunately, remote sensing, together with the use of Geographic Information Systems (GIS), is considered a powerful resource that enables the identification and characterization of various biophysical factors, their analysis and low-cost monitoring. These tools and predictive modeling are considered effective alternative methods for generating spatiotemporal information and describing soil and vegetation patterns, properties, and processes.

**AÇAR SÖZLƏR:** humus, coğrafiya informasiya sistemləri, qida maddəsi, interpolyasiya, torpaq analizi, arcgiz

**KEYWORDS:** hummus, geographic ınformation systems, nutrient, ınterpolation, soil analysis, arcgis

## GIRIŞ

Humus torpağın üzvi maddələrinin deqradasiyasının son mərhələsidir. Humus torpaqda bitki (yarpaq və saman) və heyvan maddələri (əsasən qurdlar və həşəratlar) parçalandıqda əmələ gəlir. Humus torpağın münbitliyini, suyun saxlanmasını, kation mübadiləsi qabiliyyətini, qida maddələrinin mövcudluğunu və torpağın sağlamlığını yaxşılaşdırır. Əslində, bir çox torpaqşünaslar humusu bitkilər tərəfindən istifadə olunan qida maddələri üçün kiler və ya anbar evi adlandırırlar.

Kənd təsərrüfatı torpaqlarında humusun miqdarı 2-10% arasında dəyişir. Ən azı 2-4% humus olan torpaq sağlam hesab olunur. Humusun əhəmiyyətinə baxmayaraq torpaq eroziyası, urbanizasiya və əkinçilik təcrübələri (becərmə kimi) kimi amillərə görə torpaq humusunun miqdarı bütün dünyada azalır.

Humus bitki sağlamlığı üçün beş mühüm rola xidmət edir. 1.Torpağın strukturunu yaxşılaşdırmaq və eroziyanı azaltmaq-Humusun əsas faydalarından biri onun torpaq strukturunu yaxşılaşdırmaq qabiliyyətidir. Humus, torpaq hissəciklərinin daha böyük aqreqatlarını yaratmağa kömək edən bir bağlayıcı maddə kimi çıxış edir. Bundan əlavə, torpaq hissəciklərini bir-birinə bağlayaraq torpaq eroziyasını azaldır. 2.Qida maddələrinin saxlanması və sərbəst buraxılması-Humus, həmçinin azot, fosfor və kalium da daxil olmaqla bir sıra qida maddələrini ehtiva edir ki, onlar parçalanarkən zamanla yavaş-yavaş ayrılırlar. Qida maddələrinin yavaş-yavaş sərbəst buraxılması bitkilərin böyümək mövsümü boyunca ehtiyac duyduqları qida maddələrinin davamlı şəkildə təmin edilməsinə kömək edir. 3.Suyun saxlanması və sərbəst buraxılması-Humus süngər kimi fəaliyyət göstərə bilər, suyu udur və bitkinin quru dövrlərdə istifadə etməsi üçün torpaqda saxlaya bilər. Tərkibində humus olan torpağa su əlavə edildikdə suyun bir hissəsi humus hissəciklərinin səthində, qalan hissəsi isə hissəciklər arasındakı məsamə boşluqlarında saxlanılır. Torpaq quruduqca, humusda saxlanılan su yavaş-yavaş ətrafdakı torpağa buraxılır və bitki kökləri üçün davamlı nəm axını təmin edir. 4.Karbonun ayrılması-Bundan əlavə, humus, karbonu atmosferdən tutaraq iqlim dəyişikliyinin təsirlərini yumşaldaraq, torpaqda karbonun saxlanmasının vacib mənbəyidir. 5.Faydalı mikroblar üçün yaşayış yeri kimi xidmət edir-Humus torpağın sağlamlığında və qida maddələrinin dövriyyəsində əsas rol oynayan bir sıra faydalı mikrobların yaşayış yeridir. (Soil organik carbon the hidden potential. Food and Agriculture organization of the United Nations-Rome. 2017).

Coğrafi informasiya sistemləri həyatın müxtəlif sahələrində, o cümlədən hərbi, mülki, mühəndislik və kənd təsərrüfatı və bunların bağlı olduğu sahələrdə özünü göstərir. Coğrafi informasiya sistemləri məlumatları skan edildikdən sonra tədqiqat sahəsi üçün məlumatların toplanması və daxil edilməsində, sonra isə emal olunmasından təşkil olunur. Hazırda coğrafi informasiya sistemləri üsullarından, xüsusən də sorğulardan torpağın ekoloji fiziki və kimyəvi xüsusiyyətlərinə əsaslanaraq torpaqların təsnifatının aparılmasında geniş istifadə olunur. Torpaq səthi materiallarının xüsusiyyətlərini əks etdirərək torpaq və torpaq məlumatlarını ekoloji göstəricilərinə əsaslanaraq təhlil aparılır. (https://www.sciencedirect.com/science/article/abs/pii/S034181622300070X)

Torpağın spektral xassələri və alt bölmələri ilə əlaqədar olaraq, bu tədqiqatda təsvir emalından istifadə edilərək torpaq növlərinin paylanması və torpaqdan istifadə arasında sıx əlaqəni asanlıqla aşkar edilə bilər. Coğrafi informasiya sistemləri torpağın qida maddələrini göstərən torpaq münbitlik xəritələrini çəkmək üçün istifadə olunub və buna uyğun olaraq həmin torpaqlar üçün lazımi münbitlik tövsiyələrini vermək mümkündür. Torpaq məkan məlumat xəritələri ilə torpağın qida dəyişkənliyini simulyasiya edən, torpağın quraqlığa davamlılığında təsirli xüsusiyyətlərdən istifadə edərək quraqlığa həssas torpaqların xəritəsini hazırlamaq və sonra bu xassələri CİS əsas modelində araşdırmaq mümkündür.

Tədqiqat ərazisində torpaqların su keçirmə qabiliyyəti ilə müxtəlif tipli amillər orijinal materiallar, toxumalar, torpaq tərkibi baxımından torpağın müxtəlif genetik xüsusiyyətləri, üzvi maddələr və yeraltı suların dərinliyi, torpaq landşaftına imsan təsiri faktoru nəticəsində təsnif edərək yeni torpaq təsnifatı sistemini təklif etmək mümkündür. Digər tərəfdən torpaq eroziyası və ya deqradasiyası CİS-dən istifadə etməklə izlənilə bilər. Su toplayan və orta illik torpaq itkisi nisbətinin olduğu eroziyaya meylli bir ərazi olan tədqiqat sahəsi coğrafi informasiya sistemlərindən istifadə etməklə ekoloji baxımdan dəyişmələri izləmək mümkündür. (https://grdc.com.au/resources-and-publications/grdc-update-papers/tab-content/grdc-update-papers/2014/08/soil-organic-matter)

Bu gün torpağın ekoloji xassələrinin məkanda bölüşdürülməsi daha geniş istifadə və onlardan istifadənin prinsipləri və metodoloji yanaşmaları haqqında peşəkar bilik tələb edir. Düzgün modelləşdirmə və proqnozlaşdırma üsulu torpağın ekoloji xassələrinin öyrənilən göstəricilərinin inkişaf tendensiyasını tez və etibarlı qiymətləndirməyə imkan verir. Odur ki, rasional idarəetmə qərarlarının qəbul edilməsi üçün aqroekoloji monitorinq sistemində məlumatların toplanması, tədqiqi, modelləşdirilməsi və proqnozlaşdırılması üçün müvafiq müasir texnika, metod və vasitələrdən istifadə etmək vacibdir.Torpağın aqrokimyəvi xüsusiyyətlərinin məkan paylanmasını bilmək, karbon balansını hesablayarkən gübrə və ehtiyatların qiymətləndirilməsi xərclərini əhəmiyyətli dərəcədə azalda bilər.

**TƏDQIQAT METODU**

Torpaq analizi iki kateqoriyada aparıla bilən bir analiz növüdür: ətraf mühit və kənd təsərrüfatı. Ətraf mühit qanunvericiliyində torpağın çirklənməsi baxımından qiymətləndirmə aparılarkən, kənd təsərrüfatı torpaqlarının təhlilində məhsuldarlıq araşdırmaları aparılır.

Ətraf mühitin torpağın çirklənməsini aşkar etməklə, zavod sahələrinin alınmasından sonra yarana biləcək ciddi müalicə və ya zərərsizləşdirmə xərclərinin qarşısı alına bilər və çirklənmiş sahələr üçün qiymətlərdə endirimlər edilə bilər. Bundan əlavə, ətraf mühitin torpağın çirklənməsini araşdırmaq üçün qanunvericilik çərçivəsində torpaq analizi tələb oluna bilər. Ətraf mühitin torpaqlarının analizinin ikinci istiqaməti torpaqda olan orqanik madələrin dəyişim dinamikasını izləmək.

Kənd təsərrüfatında torpaq analizinin məqsədi torpaqda bitkinin xeyrinə gübrənin növünü və miqdarını müəyyən etməkdir. Torpaqdan yaxşı məhsul əldə etmək, yüksək keyfiyyətli və yüksək məhsuldarlıq təmin etmək üçün düzgün gübrələmə lazımdır. Düzgün gübrələmə etmək üçün torpaq analizi tələb olunur. Torpaq analizi yolu ilə torpağın növünü və miqdarını müəyyən etməklə, gübrələrin düzgün və həddindən artıq istifadəsinin qarşısı alına bilər. Bununla da gübrələrdən düzgün istifadə edilməməsi nəticəsində yaranan ətraf mühitin çirklənməsinin və quraqlığın qarşısı alınır. (Q Məmədov. V Quliyev. 2002).

Torpağın təhlili qida tərkibi, turşuluq və hissəcik ölçüsü kimi həm kimyəvi, həm də fiziki torpaq şəraitinin diaqnozu üçün vacib bir üsuldur. Torpağın əhəng ehtiyacını, nə qədər və hansı növ əhəngdaşı istifadə edilməli olduğunu, torpaqda hansı gübrələrin istifadə edilməli olduğunu qiymətləndirir. Gübrələmə yolu ilə torpaqda çatışmayan və bitkilər üçün zəruri olan qida maddələri təmin edilir. Ətraf mühitin lazımsız gübrələmədən qorunmasını təmin edərkən yüksək məhsuldarlığı təmin etmək üçün torpağın təhlili lazımdır**.** Bundan əlavə, münbit torpaq yaratmaq və bitkilər üçün ən yaxşı şəraiti təmin etmək üçün torpaq analizi lazımdır. (https://www.mdpi.com/1999-4907/14/3/539)

Torpağın üzvi maddəsini proqnozlarında iqlim faktorları da mühüm rol oynamışdır. Bu mənada yağıntılar torpağın üzvi maddəsini tərkibindəki dəyişiklikləri izah edən üçüncü amil idi; iqlim amilləri bitki örtüyünün növünə, böyüməsinə və mikrob aktivliyinə əhəmiyyətli dərəcədə təsir göstərdiyi üçün üzvi maddələrlə sıx bağlıdır. Torpağın üzvi maddəsini torpağın üzvi karbonla ilə müqayisədə daha çox məkan dəyişkənliyi və ətraf mühit dəyişənləri ilə əlaqələrdən daha çox asılılıq nümayiş etdirir.

Tədqiqat ərazisi kimi Xaçmaz rayonunun Ərəblər kəndi ərazisində yerləşən 600 ha ərazi götürülmüşdür. Ərazinin iqlimi Yayı isti və quraq, qışı mülayim və yağıntılı keşən yarımsəhra və quru çöl iqlimi hakimdir. Landşaft çəhətdən ərazidə yarımsəhra landşaftı yayılmışdır. Ərazi kənd təsərüfatında əkinçilik üçün istifadə olinur. Buda ərazinin antrapagen təsirə məruz qalmasına şərait yaradır. Bu təsirin nə dərəcə intensiv və qalıcı olmasını öyrənmək üşün 60 nğqtədən torpaq nümunələri götürülmüşdür. Nümunələr 2 qatdan 0-30 sm və 30-60 sm aralığından götürülmüşdür. Burda əsas məqsəd 0-30 sm aralığında təsirlə 30-60 sm aralığında təsirin müqayisə edilməsidir.

***Cədvəl 1**. Tədqiqat ərazisində humus miqdarı(Xaçmaz rayonu)*

| Humus Miqdarı (Xaçmaz ray) | | | | | |
|---|---|---|---|---|---|
| Tədqiqat Nöqtəsi | Metod | Ölçü Vahidi | Norma | Nəticə(0-30sm) | Nəticə(30-60sm) |
| 1 | Walkley-Black | % | 2-3 | 3,02 | 1.74 |
| 2 | Walkley-Black | % | 2-3 | 2,9 | 1.8 |
| 3 | Walkley-Black | % | 2-3 | 2,87 | 2.44 |
| 4 | Walkley-Black | % | 2-3 | 2,83 | 2.83 |
| 5 | Walkley-Black | % | 2-3 | 3,25 | 1.8 |
| 6 | Walkley-Black | % | 2-3 | 2,54 | 3.01 |
| 7 | Walkley-Black | % | 2-3 | 2,99 | 2.03 |

| | | | | | |
|---|---|---|---|---|---|
| 8 | Walkley-Black | % | 2-3 | 2,7 | 2.09 |
| 9 | Walkley-Black | % | 2-3 | 2,64 | 2.17 |
| 10 | Walkley-Black | % | 2-3 | 2,52 | 1.74 |
| 11 | Walkley-Black | % | 2-3 | 3,02 | 2.14 |
| 12 | Walkley-Black | % | 2-3 | 3,05 | 1.91 |
| 13 | Walkley-Black | % | 2-3 | 3,07 | 2.14 |
| 14 | Walkley-Black | % | 2-3 | 2,5 | 2.17 |
| 15 | Walkley-Black | % | 2-3 | 2,93 | 1.74 |
| 16 | Walkley-Black | % | 2-3 | 2,99 | 1.88 |
| 17 | Walkley-Black | % | 2-3 | 2,93 | 1.74 |
| 18 | Walkley-Black | % | 2-3 | 3,05 | 2.99 |
| 19 | Walkley-Black | % | 2-3 | 3,05 | 2.26 |
| 20 | Walkley-Black | % | 2-3 | 3,54 | 2.96 |
| 21 | Walkley-Black | % | 2-3 | 1,02 | 1.74 |
| 22 | Walkley-Black | % | 2-3 | 2,26 | 1.8 |
| 23 | Walkley-Black | % | 2-3 | 2,75 | 2.17 |
| 24 | Walkley-Black | % | 2-3 | 3,48 | 1.24 |
| 25 | Walkley-Black | % | 2-3 | 3,05 | 2.05 |
| 26 | Walkley-Black | % | 2-3 | 3,05 | 2.26 |
| 27 | Walkley-Black | % | 2-3 | 2,99 | 2.26 |
| 28 | Walkley-Black | % | 2-3 | 2,17 | 1.8 |
| 29 | Walkley-Black | % | 2-3 | 2,32 | 1.8 |
| 30 | Walkley-Black | % | 2-3 | 2,74 | 2.02 |
| 31 | Walkley-Black | % | 2-3 | 2,43 | 1.24 |
| 32 | Walkley-Black | % | 2-3 | 1,65 | 2.32 |
| 33 | Walkley-Black | % | 2-3 | 2,32 | 1.74 |
| 34 | Walkley-Black | % | 2-3 | 2,38 | 1.65 |
| 35 | Walkley-Black | % | 2-3 | 2,39 | 1.66 |
| 36 | Walkley-Black | % | 2-3 | 2,61 | 1.74 |
| 37 | Walkley-Black | % | 2-3 | 2,03 | 1.56 |
| 38 | Walkley-Black | % | 2-3 | 3,34 | 1.66 |
| 39 | Walkley-Black | % | 2-3 | 2,38 | 1.74 |
| 40 | Walkley-Black | % | 2-3 | 2,32 | 1.59 |
| 41 | Walkley-Black | % | 2-3 | 2,39 | 1.59 |
| 42 | Walkley-Black | % | 2-3 | 2,39 | 1.45 |
| 43 | Walkley-Black | % | 2-3 | 2,3 | 1.83 |
| 44 | Walkley-Black | % | 2-3 | 2,71 | 2.16 |
| 45 | Walkley-Black | % | 2-3 | 2,52 | 2.52 |
| 46 | Walkley-Black | % | 2-3 | 2,38 | 1.52 |
| 47 | Walkley-Black | % | 2-3 | 2,9 | 1.88 |
| 48 | Walkley-Black | % | 2-3 | 1,12 | 2.14 |
| 49 | Walkley-Black | % | 2-3 | 1,96 | 2.15 |
| 50 | Walkley-Black | % | 2-3 | 2,7 | 2.16 |
| 51 | Walkley-Black | % | 2-3 | 2,38 | 1.71 |
| 52 | Walkley-Black | % | 2-3 | 3,34 | 2.12 |
| 53 | Walkley-Black | % | 2-3 | 2,38 | 2.38 |
| 54 | Walkley-Black | % | 2-3 | 2,7 | 2.17 |
| 55 | Walkley-Black | % | 2-3 | 2,89 | 2.31 |
| 56 | Walkley-Black | % | 2-3 | 3,13 | 2.23 |
| 57 | Walkley-Black | % | 2-3 | 3,7 | 2.18 |
| 58 | Walkley-Black | % | 2-3 | 3,1 | 2.49 |
| 59 | Walkley-Black | % | 2-3 | 3,63 | 3.36 |
| 60 | Walkley-Black | % | 2-3 | 3,13 | 2.14 |

Cədvəl 1-də ərazidən götürülmüş 60 nöqtənin laboratoriya analiz nəticəsi verilmişdir. Humus ehtiyatı 2 təbəqə əsasında verilmişdir. Birinci 0-30 sm-lik təbəqədə humus ehtiyatı norma daxilindədir. İki nöqtədən götürülmüş humus ehtiyyatı normadan aşağıdır. Buna səbəb həmin ərazinin karbonatlı

süxurların çox olmasıdır. İkinci 30-60 sm-lik təbəqədə humus ehtiyatı çoxluqla norma aşağısındadır. Buna səbəb ərazinin torpaq tipində süzülmə prosesi intensiv gedir. Buna səbəb əkinçilik altında ərazinin intensiv suvarılmasıdır.




**Şəkil 1**. Tədqiqat ərazisində humusun yayılması (0-30sm)

Coğrafi informasiya sistemlərinin tərkib hissəsi olan Arcgis proqram təminatı ilə hazırlanmış xəritə humusun 0-30 sm-də yayılma intensivliyini göstərir. İnterpolyasiya metodu ilə hazırlanmış xəritədə 60 nöqtədən alınan məlumatlar əsasında humusun yayılmasını izləmək olar. İnterpolyasiya metodu ilə yaradılmış xəritədə 7 ayrıcı humus miqdarı götürülmüşdür. Normadan aşağı 3, norma daxilində 4 və normadan yuxarı 2 kəmiyyət götürülmüşdür. Normadan aşağı humus miqdarı əsasən tədqiqat ərazisinin şimal və şimal-şərq hissəsində müşahidə olunur.

İnterpolyasiya alətləri seçilmiş nöqtə dəyərlərindən davamlı (və ya proqnozlaşdırma) səth yaradır. Bir fenomenin hündürlüyünü, konsentrasiyasını və ya miqyasını ölçmək üçün tədqiqat sahəsindəki hər yerə baş çəkmək adətən çətin və ya bahalıdır. Bunun əvəzinə siz hadisəni strateji cəhətdən səpələnmiş nümunə yerlərində ölçə bilərsiniz və proqnozlaşdırılan dəyərlər bütün digər yerlərə təyin edilə bilər. Giriş nöqtələri ya təsadüfi, ya da müntəzəm olaraq yerləşdirilə və ya seçmə sxeminə əsaslana bilər.

Raster verilənlər toplusunun davamlı səth təsviri hündürlük, konsentrasiya və ya böyüklük (məsələn, yüksəklik, turşuluq və ya səs-küy səviyyəsi) kimi bəzi ölçüləri təmsil edir. Səthi interpolyasiya alətləri, yerdə ölçmə aparılıb-alınmamasından asılı olmayaraq, çıxış rastr verilənlər bazasındakı bütün yerlər üçün nümunə ölçmələrindən proqnozlar verir.

Hər bir yer üçün proqnoz əldə etməyin müxtəlif yolları var; hər bir üsul bir model kimi istinad edilir. Hər bir modeldə verilənlərə dair müxtəlif fərziyyələr mövcuddur və müəyyən modellər konkret məlumatlar üçün daha uyğundur – məsələn, bir model yerli dəyişkənliyi digərindən daha yaxşı hesablaya bilər. Hər bir model müxtəlif hesablamalardan istifadə edərək proqnozlar verir.

İnterpolyasiya vasitələri ümumiyyətlə deterministik və geostatistik üsullara bölünür.

Deterministik interpolyasiya üsulları ətraf ölçülmüş dəyərlərə və nəticədə yaranan səthin hamarlığını təyin edən müəyyən riyazi düsturlara əsaslanaraq yerlərə qiymətlər təyin edir.

Deterministik üsullara IDW (tərs məsafənin çəkisi), Təbii Qonşu , Trend və Spline daxildir .

Geostatistik üsullar avtokorrelyasiya (ölçülmüş nöqtələr arasında statistik əlaqə) daxil olan statistik modellərə əsaslanır. Buna görə də, geostatistik üsullar təkcə proqnozlaşdırma səthi yaratmaq

qabiliyyətinə malik deyil, həm də proqnozların dəqiqliyi və ya düzgünlüyünün müəyyən ölçülərini təmin edir.




***Şəkil 2****.Tədqiqat ərazisində humusun yayılması (30-60sm)*

Şəkil 2-də humusun 30-60 sm yayılma intensivliyini interpolyasiya metodu ilə hazırlanmış xəitədə göstərilmişdir. Burda 9 ayrıcı sərhəd götürülmüşdür. Xəritədən də göründüyü kimi 30-60 sm-lik təbəqənin çox hissəsində humusun miqdarı normadan aşağıdır. Buna əsas səbəb intensiv əkinçilik altında suvarma suyunun humusu aşağı qatlara yumasıdır. Burda əsas rol torpaq tipidir. Toqpağın üzvi maddəsinin proqnozlarında iqlim faktorları da mühüm rol oynamışdır. Bu mənada yağıntılar torpağın üzvi maddəsinin tərkibindəki dəyişiklikləri izah edən üçüncü amil idi; iqlim amilləri bitki örtüyünün növünə, böyüməsinə və mikrob aktivliyinə əhəmiyyətli dərəcədə təsir göstərdiyi üçün üzvi maddələrlə sıx bağlıdır.

**NƏTICƏ**

Bu tədqiqatda bildirilən məlumat Xaçmaz rayonu Ərəblər kəndi sahəsində yerləşən tədqiqat sahəsində humusun paylanmasını və CİS vasitəsilə yaradılan topoqrafiya, iqlim və bitki örtüyü ilə bağlı ətraf mühit dəyişənlərinin səciyyələndirilməsini əks etdirir. Bu məlumatlar torpağın üzvi maddələrin tərkibini qiymətləndirmək və onun tədqiq olunan ərazidə məkan paylanmasını müəyyən etmək üçün empirik modelin işlənib hazırlanmasına imkan verdi.

Model yaxşı uyğunluq təqdim etdi; lakin tədqiqat sahəsində torpağın üzvi maddələrinin dinamikasını daha yaxşı başa düşməyə kömək etmək üçün daha əhəmiyyətli sayda nümunələr aparmaq lazımdır. Eyni şəkildə, fəza dəyişkənliyi ilə bağlı proqnoz modellərindən istifadə etmək üçün biofiziki amillərin yüksək dəyişkənliyini təmsil etmək üçün torpaq nümunələrinin daha çox heterojenlik təqdim etməsi tövsiyə olunur.

Son olaraq nəticəni ümumiləşdirsək 3 başlığa ayırmaq olar.

- Humus təbəqəsinin inkişafının əsas nəzarətedici ekoloji amilləri və onun təsirə məruz qalan bölgəsində təsir yolları aydınlaşdırıldı.
- Humus təbəqəsinin qalınlığının məkan paylanmasının xəritəsini tərtib etdi və ilkin məlumatları təqdim etdi.
- İsti iqlim şəraitində humus təbəqəsinin qalınlığının dəyişmə tendensiyası aşkar edilmişdir.

**ƏDƏBIYYAT SIYAHISI**

1. Q Məmədov. V Quliyev. (2002). Azərbaycanın şimal-şərq əkinçilik zonası torpaqlarının qiymətləndirilməsi. Bakı. Elm
2. Soil organik carbon the hidden potential. Food and Agriculture organization of the United Nations-Rome. 2017
3. https://grdc.com.au/resources-and-publications/grdc-update-papers/tab-content/grdc-update-papers/2014/08/soil-organic-matter
4. https://www.sciencedirect.com/science/article/abs/pii/S034181622300070X
5. https://www.mdpi.com/1999-4907/14/3/539

# MAKRO VƏ MİKROELEMENTLƏRİN ÜZÜM SORTLARININ KEYFİYYƏT XÜSUSİYYƏTLƏRİNƏ TƏSİRİ

**MÖVLUD HÜSEYNOV**
Azərbaycan Dövlət İqtisad Universiteti – UNEC
Mühəndislik/Ekologiya mühəndisliyi
*movlud.huseynov@unec.edu.az*
BAKI, AZƏRBAYCAN

**XÜLASƏ**

Mineral gübrələrin səmərəliliyinin artırılması üçün torpağın qida maddələri ilə təmin olunması nəzərə alınaraq onların torpaqda optimal şəkildə paylanmasını düzgün həyata keçirmək lazımdır. Qeyd olunanlara əsasən tənəyin inkişaf fazalarında torpaqdan mənimsənilə bilən qida elementlərinin miqdarı dəqiq şəkildə müəyyən edilməlidir. Azərbaycanın müxtəlif regionlarından gətirilmiş və Ampeloqrafik kolleksiya bağında əkilib becərilən Təbrizi, Ağadayı, Rkasiteli, Qara kişmiş, Ağ oval kişmiş üzüm sortları tədqiqat obyekti olaraq seçilmişdir. Tədqiqat işi Abşeron yarımadasında həyata keçirilmişdir. Üzüm bağlarından tələb olunan məhsuldarlıq və keyfiyyətə malik məhsul əldə etmək məqsədilə tətbiq edilən əməliyyatlardan gübrələmənin təsiri daha çox müşahidə edilmişdir. Tumurcuqlarda və gözcüklərdəki çiçək topalarının əmələ gəlməsi və inkişafı normal şəkildə getdiyindən barlı zoğların miqdarı, salxımların sayı və kütləsi xeyli artır. II variantda Seleda 3 kq/tənək (kökdən) + Razormin 3 l/ha (yarpaqdan) və I variantda Seleda 2 kq/tənək (kökdən) + Razormin 3 l/ha (yarpaqdan) tənək daha sağlam olmaqla bərabər, böyük potensial barvermə qabiliyyətinə malik olur. Belə sahələrdə su mübadiləsi yaxşılaşır, bitkilərdə tərləmə və əsasən də su itkisi azalır, yazda tənəklərdə açılmış tumurcuqların faizi artır. Salxımın orta kütləsinin formalaşmasında gilələrin sayı və onların kütləsi əsas rol oynayır. Gilələrin kütlə göstəricisi süfrə sortları üçün xarakterik əlamət sayılır. Müəyyən edilmişdir ki, sortlar üzrə gilələrin ölçü və kütləsi onların biomorfoloji xüsusiyyətindən, mənşəyindən və ekoloji-coğrafi qrupundan asılı olaraq olduqca geniş diapozonda dəyişir.

**AÇAR SÖZLƏR: üzüm bitkisi, qida maddələri, kökdən yemləmə**

**SUMMARY**

In order to increase the efficiency of mineral fertilizers, it is necessary to properly distribute them in the soil, taking into account the supply of nutrients to the soil. Based on the above, the amount of nutrients that can be assimilated from the soil during the development phases of the stem should be determined precisely. Tabrizi, Aghadayi, Rkasiteli, Black raisin, White oval raisin grape varieties brought from different regions of Azerbaijan and planted and cultivated in the garden of the Ampelographic collection were selected as research objects. The research work was carried out on the Absheron Peninsula. The effect of fertilization was observed more than the operations applied in order to obtain a product with the required productivity and quality from the vineyards. Since the formation

and development of flower balls in shoots and buds is going well, the amount of barred spikelets, the number and mass of bunches increases significantly. In variant II Seleda 3 kg/vine (from root) + Razormin 3 l/ha (from leaf) and in variant I Seleda 2 kg/vine (from root) + Razormin 3 l/ha (from leaf) the vine is healthier and has a large potential fruiting capacity happens. In such areas, water exchange improves, transpiration in plants and water loss in general decreases, and the percentage of buds opened on vines increases in spring. The number of berries and their mass play a key role in the formation of the average mass of the cluster. The mass indicator of berries is considered a characteristic sign for table varieties. It has been established that the size and mass of berries vary widely depending on their biomorphological characteristics, origin and ecological-geographical group.

**KEY WORDS:** grape plant, nutrients, root feeding

**GIRIŞ**

Gübrələrin torpağın bioloji aktivliyini artırmaqla aqrofiziki xassələrə qısa müddətli təsiri tədqiqatçılar tərəfindən qeyd olunur. Adətən becərmə üsulları fonunda gübrələrin tənəyin bioloji məhsuldarlığına, aqroekoloji şəraitdən asılı olaraq məhsulun keyfiyyətinə, əkin sahəsinin alaqlanma dərəcəsinə və s. təsiri müşahidə olunur. Bir çox tədqiqatçıların məlumatına görə tənəyin məhsuldarlığı, əsas qida maddələrinin toplanması, torpaq-iqlim şəraitindən, torpaqda əsas qida maddələrinin (azot, fosfor və kalium) asan mənimsənilən formalarının ehtiyatından, gübrələrin norma və nisbətlərindən asılıdır. Tənəyin vegetasiya müddətində əsas qida maddələri ilə təmin olunması, həmçinin üzvi və mineral gübrələrin normalarının müəyyənləşdirilməsi, tənəyin potensial məhsuldarlığından, əsas qida maddələrinin asan mənimsənilən formalarının asan hidroliz olunan azot, mütəhərrik fosfor ($P_2O_5$) və dəyişən kaliumun ($K_2O$) torpaqdakı ehtiyatından, tənək tərəfindən onların mənimsənilmə əmsalından asılıdır. Gübrədən istifadə əmsalı torpaq-iqlim şəraitindən, torpağın fosforla təmin olunma dərəcəsindən asılı olaraq dəyişir (Cəfərov, 2006; Səlimov və b., 2022).

Tənəyin vegetasiya müddətində əsas qida maddələri ilə təmin olunması torpaqda olan nəmlikdən və temperaturdan asılıdır. Torpaqda normal nəmlik və temperatur olduqda fosfor və kaliumun nisbətən çətin mənimsənilən formaları asan mənimsənilən formaya çevrilir və əksinə nəmlik çatışmadıqda temperatur yüksək olsa da fosfor və kaliumun asan mənimsənilən formaları nisbətən çətin mənimsənilən formaya keçir (Əsədullayev, 1977).

Mineral gübrələrin səmərəliliyinin artırılması yollarından biri torpağın qida maddələri ilə təmin olunmasını nəzərə almaqla onların torpaqda səmərəli paylanmasıdır. Bununla əlaqədar məhsul və torpaqda olan qida maddələrinin miqdarından asılı olaraq mineral gübrələrin səmərəliliyi arasında asılılığı müəyyən etmək çox vacibdir. Müxtəlif torpaq-iqlim bölgələrində aparılmış tədqiqatlardan məlum olmuşdur ki, torpaqda mənimsənilən qida elementlərinin miqdarının artması ilə bitki məhsulu müəyyən səviyyəyə qədər yüksəlir. Qida elementlərinin miqdarının bu səviyyədən yuxarı qalxması məhsul və keyfiyyətin yüksəlməsinə müsbət təsir göstərmir. Əksinə məhsulun həcminin azalması və keyfiyyətin pisləşməsi ilə nəticələnir. Tənəyin inkişaf mərhələlərinin müxtəlif dövrlərində qida maddələrinə olan tələbatı fərqlidir. İnkişafın əsas mərhələlərində tənək mənimsənilən qida elementləri ilə tələbata uyğun təmin olunarsa məhsul və keyfiyyətin artması reallaşmış olur. Ona görə də torpaq daim nəzarətdə olmalıdır. Tənəyin inkişaf mərhələlərində torpaqdan mənimsənilən qida elementlərinin miqdarı mütləq şəkildə öyrənilməlidir (Cəfərov, 2006).

**TƏDQIQAT METODU**

Müxtəlif bölgələrdən gətirilmiş ÜŞETİ-nin Ampeloqrafik kolleksiya bağında əkilib-becərilən Təbrizi, Ağadayı, Rkasiteli, Qara kişmiş, Ağ oval kişmiş üzüm sortları seçilmişdir. Tədqiqat işi Abşeron yarımadasında aparılmışdır. Yarımadanın torpaq örtüyü əsasən boz-qonur tipinə aiddir.

Tədqiqat işlərində gübrə variantlarının seçilməsində dünyada geniş istifadə olunan və təkrarlar üsulundan istifadə olunmuşdur. Tədqiqat işi yeni təsərrüfat sisteminə uyğun olaraq - tumurcuqların cəmi, açılmayan gözcüklərin sayı, yaşıl zoğların ümumi sayı, 1-salxımlı zoğlar, 2-salxımlı zoğlar, cəmi barlı zoğlar, salxımların miqdarı, açılmış gözcüyün %-lə miqdarı, tənəyin və ya gözcüyün bar əmsalı, yaşıl zoğların bar əmsalı, bar zoğların bar əmsalı, barlı zoğların %-lə miqdarı, salxımın orta kütləsi А.А. Зармаев, М.Н. Борисенко elmi əsərlərində olan göstəricilərinə uyğun olaraq aparılmışdır (Зармаев & Борисенко, 2018).

Tədqiqat zamanı təcrübə sahəsində torpaq kəsimləri qoyulmuş, 0-10;10-20; 30-40 sm dərinliklərdən torpaq nümunələri götürülmüş və analiz üçün hazırlanmışdır.

Tədqiqat işinin metodikasına uyğun olaraq əvvəlcədən (qışda) Seleda gübrəsi hər tənəyə 2 kq, 3 kq, 4 kq miqdarında olmaqla 3 variantda verilmişdir. Bu variantlar Abşeron kolleksiya bağı üzümaltı torpaqlarının analiz nəticələri əsasında müəyyən edilmişdir. O, cümlədən çiçəkləmədən sonra bir dəfə də əlavə yemləmə şəklində Seleda gübrəsindən (3 variantda hər tənəyə 2, 3 və 4 kq hesabı ilə) və vegetasiya ərzində Razormin ilə 4 dəfə və 3 dozada (2,5 l/ha; 3,0 l/ha; 4,0 l/ha) olmaqla çiçəkləmədən əvvəl, çiçəkləmədən sonra, qoraların formalaşması və iriləşməsi dövrlərində kökdənkənar çiləmələr aparmaqla həyata keçirilmişdir.

Tədqiqat işində kök və yarpağa müxtəlif dozalarda gübrə verilmişdir.

I variant Seleda 2 kq (kökdən)+ Razormin 3 l/ha (yarpaqdan), II variant Seleda 3 kq (kökdən)+ Razormin 3 l/ha (yarpaqdan), III variantda Seleda 4 kq (kökdən)+ Razormin 3 l/ha (yarpaqdan) tətbiq edilmişdir. IV variant - nəzarət gübrələmə və çiləmə aparılmayan dozanı müəyyən etməkdir.

Tədqiq edilən üzüm sortlarının məhsuldarlıq, uvaloji (mexaniki, keyfiyyət və s.) göstəricilərinin uçotu və qiymətləndirilməsi ənənəvi və müasir üsullarla öyrənilmişdir (Hacıməmmədov & Novruzov, 2020).

Torpaq nümunələrində humus-Tyurinə, hidroliz olunan azot-Tyurin və Kononovaya, suda həll olunan və udulmuş ammonyak azotu Nesslər reaktivi ilə, nitrat azotu- Qrandval-Lyaj metodu ilə (disulfofenol turşusunun iştirakı ilə), suda həll olunan və mübadilə olunan kalium-Protasov metodu ilə alovlu fotometrlə, torpaq və bitkidə ümumi azot, fosfor və kalium – Kinzburq, Şeqlova və Vulfiusa görə təyin olunmuşdur.

Tədqiqatlar nəticəsində məlum olmuşdur ki, torpaq analizində 5,5-6,5 intervalında pH-7,6 qiymətini alır və bu göstərici normadan yüksək olur. 1-5 aralığında humus -1,0% alınır. <10 intervalında $CaCO_3$–7,3%, <4 EC-0,46 MS/Cm alındığı müşahidə olunur. Azot (N) 40-20 aralığında 113 mq/kq-dır və normadan yüksək olur. Fosfor (P) 50-15 intervalında 0,4 mq/kq-dır və normadan aşağı olduğu müəyyən olunur. Kalium (K) 120-220 arasında 220mq/kq –dır. Kalsium (Ca) 800-1200 intervalında 19745 mq/kq alınır və normadan çox yüksəkdir. Maqnezium (Mg) 60-120 intervalında 381 mq/kq-dır və normadan yüksək olduğu müşahidə olunur. Natrium (Na) 0-60 aralığında 705 mq/kq qiymətini alır və normadan yüksəkdir. Xlor (Cl) 20-150 aralığında 70 mq/kq-dır. $SO_4$ 20-40 intervalında 214 mg/kg müəyyən olunur və normadan yüksəkdir. Dəmir (Fe) 11-16 aralığında 8,6 mq/kq alınır və normadan aşağı olduğu müşahidə olunur. Bor (B) 0,8-2,0 intervalında 1,2 mq/kq alınır. Mis (Cu) 0,9-1,2 intervalında 0,4 mq/kq qiymətini alır və normadan aşağı olduğu müəyyən olunur. Sink (Zn) 1,1-3,0 arasında 0,4 alır və normadan aşağı olduğu təyin olunur. Manqan (Mn) 4-8 intervalında 15 mq/kq qiymətini alır və normadan yüksəkdir.

Daimi qeydiyyatda olan üzüm tənəkləri üzərində aşağıda qeyd olunan biometrik müşahidələr aparılmışdır:

Quru budamadan sonra saxlanılmış ümumi gözcüklərin miqdarının təyini; açılmış gözcüklərin sayının hesablanması; məhsuldarlığın effektivliyinin təyini, a) salxımların sayının təyini, b) salxımların orta çəkisinin təyini; hər variantdan 10 ədəd salxım götürməklə hər salxımın orta çəkisinin təyini, v) bir tənəyin orta məhsuldarlığının təyini (salxımların sayına bir salxımın orta çəkisini vurmaqla), q) 1 ha sahədə orta məhsuldarlığın təyini (1 tənəyin məhsuldarlığını 1 ha sahədə olan tənəklərin sayına vurmaqla). Tənəklərin qida maddələrinə olan tələbatının vegetasiya müddətində tam ödənilməsi üçün onların potensial məhsuldarlığına müvafiq əsas qida maddələri ilə təmin olunmaları lazımdır. Fenoloji müşahidələr üzrə tədqiq etdiyimiz üzüm sortları vegetasiya fazalarını normal keçirirlər. Tumurcuğun sayına görə Təbrizi üzüm sortunda 26,0-75,5, Ağadayı üzüm sortunda 31,0-65,4, 37,2-58,0, Qara kişmiş üzüm sortunda 45,3–61,0, Ağ oval kişmişi üzüm sortunda 24,0–77,3 aralığında dəyişklik olmuşdur. Sortlar üzrə açılmayan gözcüyün sayına baxsaq, Təbrizi üzüm sortunda 5,7-7,6, Ağadayı üzüm sortunda 4,9–6,0, Rkasiteli üzüm sortunda 3,6-6,6, Qara kişmiş üzüm sortunda 2,5–6,8, Ağ oval kişmişi üzüm sortunda 4,6-7,1 intervalında dəyişkənlik əldə olunmuşdur. Yaşıl zoğların ümumi sayı üzrə Təbrizi üzüm sortu 19,6-69,1, Ağadayı üzüm sortunda 25,1-60,5, Rkasiteli üzüm sortunda 31,0-54,4, Qara kişmiş üzüm sortunda 42,8–56,3, Ağ oval kişmişi üzüm sortunda 20,2-72,6 qiymətlər müşahidə edilmişdir. İlk növbədə təsərrüfat məhsuldarlığını tənəkdə əmələ gələn salxımlı zoğlar müəyyən edir. Tədqiqat işində 1-salxımlı zoğlar Təbrizi üzüm sortu üzrə 3,5-20,0, Ağadayı üzüm sortu üzrə 13,3-42,0, Rkasiteli üzüm sortu üzrə 14,1-32,1, Qara kişmiş üzüm sortu üzrə 16,2-26,7, Ağ oval kişmişi üzüm sortu üzrə 13,0-16,7 sayı arasında kəskin fərq görülmüşdür. 2-salxımlı zoğlar Təbrizi üzüm sortu üzrə 1,3-3,8, Ağadayı üzüm sortu üzrə 0,9-4,3, Rkasiteli üzüm

sortu üzrə 1,1-2,9, Qara kişmiş üzüm sortu üzrə 1,9–3,2, Ağ oval kişmişi üzüm sortu üzrə 1,5-4,1 say fərqi ilə görülmüşdür. Tənəkdə cəmi barlı zoğlar Təbrizi üzüm sortunda 12,7-38,0, Ağadayı üzüm sortunda 14,2-27,4, Rkasiteli üzüm sortunda 16,1-36,0, Qara kişmiş üzüm sortunda 19,7-30,8, Ağ oval kişmişi üzüm sortunda 14,0-24,2 sayı arasında qeydə alınmışdır. Salxım miqdarına baxsaq Təbrizi üzüm sortunda 14,0-55,1, Ağadayı üzüm sortunda 15,1-46,2, Rkasiteli üzüm sortunda 18,1-39,1, Qara kişmiş üzüm sortunda 23,9–35,3, Ağ oval kişmişi üzüm sortunda 16,0-28,2 sayı arasında dəyişikliyi müşahidə edilmişdir. Açılmış gözcüyün miqdarı üzrə Təbrizi üzüm sortunda 75,2-91,4, Ağadayı üzüm sortunda 68,1-92,6, Rkasiteli üzüm sortunda 80,2-93,6, Qara kişmiş üzüm sortunda 86,9–94,5, Ağ oval kişmişi üzüm sortunda 75,8-91,8 sayı oxşar dəyişkənlik şəklində nəticə vermişdir.

Tənəyin və ya gözcüyün bar əmsalı üzrə Təbrizi üzüm sortu 0,33-0,6, Ağadayı üzüm sortu 0,48-0,7, Rkasiteli üzüm sortu 0,48-0,67, Qara kişmiş üzüm sortu 0,5–0,58, Ağ oval kişmişi üzüm sortu 0,4-0,6 dəyişkənlik qeyd olunmuşdur.

Tədqiq olunan yaşıl zoğların bar əmsalı üzrə Təbrizi üzüm sortunda 0,61-3,35, Ağadayı üzüm sortunda 0,61-0,76, Rkasiteli üzüm sortunda 0,6-0,71, Qara kişmiş üzüm sortunda 0,55–0,8, Ağ oval kişmişi üzüm sortunda 0,33–0,8 aralığında tərəddüd etmişdir.

Məhsuldarlığın ən vacib göstəricilərindən biri də bar əmsalıdır. Barlı zoğların bar əmsalı Təbrizi üzüm sortunda 1,1-1,3, Ağadayı üzüm sortunda 1,11–1,15, Rkasiteli üzüm sortunda 1,11-1,12, Qara kişmiş üzüm sortunda 1,11–1,27, Ağ oval kişmişi üzüm sortunda 1,11–1,3 aralığında dəyişmişdir.

Barlı zoğların miqdarı (%) Təbrizi üzüm sortunda 28,6-82,6, Ağadayı üzüm sortunda 56,0-71,9, Rkasiteli üzüm sortunda 52,5-65,5, Qara kişmiş üzüm sortunda 46,3–55,7, Ağ oval kişmişi üzüm sortunda 31,7-70,0 % həddindədir.

Üzümün real məhsuldarlığı salxımın orta kütləsi ilə formalaşır. Tədqiqat işimizin nəticəsinə baxsaq görərik ki, salxımın orta kütləsi üzrə Təbrizi üzüm sortunda 230,0-382,0, Ağadayı üzüm sortunda 229,0-461,0, Rkasiteli üzüm sortunda 298,0-540,0, Qara kişmiş üzüm sortunda 269,3–539,7, Ağ oval kişmişi üzüm sortunda 323,4-648,0 qram aralığında məhsul əldə olunmuşdur.

İşin əsas mahiyyəti üzüm sortlarında keyfiyyət göstəricilərinə və məhsuldarlığa daha yaxşı təsir edən gübrə dozasını müəyyənləşdirməkdir. Belə ki, tənəyin məhsuldarlığı Təbrizi üzüm sortunda 26,2-56,3, Ağadayı üzüm sortunda 31,0-65,2, Rkasiteli üzüm sortunda 21,9-41,4, Qara kişmiş üzüm sortunda 9,01–49,7, Ağ oval kişmişi üzüm sortunda 29,1-45,3 kq/tənək nəticə vermişdir.

Tənəklərinin hektardan məhsuldarlığı Təbrizi üzüm sortu üzrə 12,8-81,7, Ağadayı üzüm sortu üzrə 25,0-50,4, Rkasiteli üzüm sortu üzrə 32,3-45,1, Qara kişmiş üzüm sortu üzrə 19,94–70,3, Ağ oval kişmişi üzüm sortu üzrə 21,8-95,4 arasında olmuşdur.

100 gilənin kütləsi Təbrizi üzüm sortunda 107,0-209,0, Ağadayı üzüm sortunda 117,3-160,0, Rkasiteli üzüm sortunda 112,0-198,1, Qara kişmiş üzüm sortunda 106,6–165,0, Ağ oval kişmişi üzüm sortunda 182,1-226,3 qram olmuşdur.

Müəyyən edilmişdir ki, gübrə dozası tənəyin salxımlarının orta kütləsinə daha çox təsir edir. Nəticələrə nəzər yetirsək görərik ki, Təbrizi üzüm sortunda 382,0 q (II variant-Seleda 3kq+Razormin 3l/ha); Ağadayı sortunda 461,0 q (II variantda Seleda 3kq + Razormin 3l/ha ) Rkasiteli sortunda 540,0 q (II variant-Seleda 3kq+Razormin 3l/ha); Qara kişmiş sortunda 539,7 q (II variantda Seleda 3kq+Razormin 3l/ha) Ağ oval kişmiş sortunda 648,0 q (I variantda 2kq+Razormin 3l/ha) olmuşdur (şəkil 1).

Vacib göstəricilərdən biri də hektardan məhsuldarlıqdır ki, bu da Təbrizi sortunda 81,7 (II variantda), Ağadayı sortunda 50,4 (Nəzarət), Rkasiteli sortunda 45,2 (II variantda), Qara kişmiş sortunda 70,3 II (variantda), Ağ oval kişmişi sortunda isə 95,4 (III variantda) ton daha çox məhsul əldə edilmişdir.

Nəticələrdə barlı zoğların faizlə miqdarı variantlar üzrə müxtəlif olmaqla, Təbrizi sortunda 82,6 (I variantda-Seleda 2 kq+Razormin 3l/ha), Ağadayı sortunda 71,9 (II variant-Seleda 3kq+Razormin 3l/ha), Rkasiteli sortunda 540,0 (II variant-Seleda 4kq+Razormin 3l/ha), Qara kişmiş sortunda 539,7 (II variant-Seleda 4kq+Razormin 3l/ha), Ağ oval kişmiş sortunda 648,0 (I variant-Seleda 2kq+Razormin3l/ha) olmuşdur.




**Şəkil 1.** Seleda və Razormin gübrəsinin fonunda üzüm sortlarının morfometrik və uvoloji göstəriciləri.

Təbrizi üzüm sortunda 100 gilənin kütləsi 107,1-209,0 q arasında dəyişir. Təbrizi sortunun göstəricilərinə nəzər saldıqda görünür ki, çox iri salxımlar (209,0 q) II variantda (Seleda 3 kq/tənək+ Razormin 3 l/ha) daha olduğu müəyyən edilmişdir. Ağadayı üzüm sortunda 100 gilənin kütləsi 117,3-165,0 q diapozonda dəyişir. Ağadayı sortunun biometrik göstəricilərinə nəzər salarkən 100 gilənin kütləsinin (165 q) olmaqla daha çox I variantda əmələ gəlmişdir. Rkasiteli üzüm sortunda 100 gilənin kütləsi 112,0-198,1 q intervalında dəyişir. Rkasiteli sortunun göstəricilərinə baxdıqda görünür ki, 198,1 q olmaqla II variantda müşahidə edilmişdir. Qara kişmiş üzüm sortunda 100 gilənin kütləsi 106,6-165,0 q olmuşdur. Qara kişmişi sortunun göstəricilərinə nəzər saldıqda görünür ki, II variantda (Seleda 3kq/tənək+ Razormin 3 l/ha) daha çox iri salxımlar (165,0 q) əmələ gəlmişdir. Ağ oval kişmiş üzüm sortunda 100 gilənin kütləsi 182,1-226,3 q arasında tərəddüd edir. 100 gilənin kütləsi isə daha çox II variantda (226,3 q) olmuşdur.

## NƏTICƏ

Tənəklərə verilən müxtəlif gübrə dozaları fonunda morfometrik, uvoloji göstəricilərə təsirləri, sortların Abşeron torpaq-iqlim şəraitinə uyğunlaşması və inkişafı öyrənilmişdir. Aparılmış tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, üzüm bağlarından lazım olan kəmiyyət və keyfiyyətə malik məhsuldarlıq əldə etmək üçün tətbiq olunan bir sıra tədbirlər arasında gübrələmənin məhsuldarlığın formalaşmasında təsiri daha çoxdur. Tumurcuq və gözcüklərdə çiçək topalarının yaranması və inkişafı yaxşı getdiyindən barlı zoğların miqdarı, salxımların sayı və kütləsi xeyli artır. II variantda Seleda 3 kq/tənək (kökdən)+ Razormin 3 l/ha (yarpaqdan), və I variantda Seleda 2 kq/tənək (kökdən)+ Razormin 3 l/ha (yarpaqdan) tənək daha sağlam olmaqla bərabər, böyük potensial barvermə qabiliyyətinə malik olur. Belə sahələrdə su mübadiləsi yaxşılaşır, bitkilərdə transpirasiya və ümumiyyətlə su itkisi azalır, yazda tənəklərdə açılmış tumurcuqların faizi artır. Salxımın orta kütləsinin formalaşmasında gilələrin sayı və onların kütləsi əsas rol oynayır. Gilələrin kütlə göstəricisi süfrə sortları üçün xarakterik əlamət sayılır. Həmçinin əmtəəlik dəyəri 100 gilənin kütləsi ilə ifadə

edilir. Sortlar üzrə gilələrinin ölçü və kütləsi onların biomorfoloji xüsusiyyətindən, mənşəyindən və ekoloji-coğrafi qrupundan asılı olaraq olduqca geniş diapozonda dəyişir.

**ƏDƏBIYYAT SIYAHISI**

1. Səlimov, V. S., Hüseynov, M. Ə., & Şükürov, A. (2022). Üzüm: aqrotexnikası, aqrokimyası və inteqrir mübarizə tədbirləri. Sapfir-15, s.784 s.

2. Hacıməmmədov, İ. & Novruzov, L. (2020). Torpağın əsas qida maddələrinin asan mənimsənilən formaları ilə təmin olunmasından asılı olaraq gübrə normalarının hesablanması. Bakı, 36 s.

3. Cəfərov, M. (2006). Torpağın xassələri və gübrələrin tətbiqi. Elm, 31 s.

4. Əsədullayev, A. N., Süleymanov, C. S., & Xəlilov, B. (1977). Üzümçülüyə dair aqronomik göstərişlər, Azərbaycan Dövlət Nəşriyyatı, 122 s.

5. Зармаев, А. & Борисенко, М. (2018). Селекция, генетика винограда и ампелография. От теории к практике. Симферополь: ФГБНУ ВННИИВиВ «Магарач» РАН, 406 с.

# QIRMIZI ŞƏRABLARDA SAXLANMA ŞƏRAITININ ANTOSIAN PAYLANMASINA TƏSIRI

**SAYAD CƏFƏROVA**
Azərbaycan Dövlət İqtisad Universiteti- UNEC
Beynəlxalq Magistratura və Doktorantura Mərkəzi/ İqtisadiyyat və texnoloji elmlər
*csayad@list.ru*
BAKI,AZƏRBAYCAN

**XÜLASƏ**

Məqalədə qara giləli Şirvanşahı, Həməşəra, Mələyi üzüm sortundan hazırlanan şərab növlərində saxlanma şəraitinin antosian paylanmasına təsirindən bəhs edilir. Məlum olmuşdur ki, şərab növləri hazırlandığı texnoloji göstəricilərdən və hazırlanma texnologiyasından asılı olaraq özünəməxsus keyfiyyət göstəricilərinə malikdir. Bu üzüm sortlarının qara giləli olmasına baxmayaraq,rəng növünə görə tərkibləri bir-birindən kəskin şəkildə fərqlənir. Hazırda günümüzdə fərqli çeşidlərdə şərablar hazırlanır. Saxlanma zamanı tərkibində antosianların miqdadarı dəyişir. Antosianlar insan orqanizminə əhəmmiyyətli dərəcədə təsir edir. Aparılan araşdırmalar göstərirki, 2003-cü ilə qədər 400-dən çox , 2006-ci ilə qədər 550-dən çox antosianin mövcud olduğunu göstərir. Antosianların kimyəvi tərkibinin tez-tez dəyişməsi onun PH dəyərləri ilə bağlıdır. Ətraf mühitin PH dəyərinə görə antosianlar rəng dəyişir. PH<5 olduqda qırmızı, PH olduqda mavi , neytral PH dəyərlərində isə bənövşəyi olur. Bundan başqa antosianlar polifenolik maddələrdir. Hemostaza kimi təsiri var. Yəni, qan itkisinin qarşısının alnması və qanaxmanın dayandırılması kimi əhəmiyyətli təsiri vardır. Əsasən, üzümün tərkibində mövcud olur. Rəngbərəng piqmentinə görə qida boyası sənayesində tez-tez istifadə olunur. Faydaları və məzmunu sayəsində antosian bəzi xəstəliklərin müalicəsində və ya sağlamlığı gücləndirmək üçün istifadə olunur. Antosiyanidinlər şəkərlə birləşdikdə antosiyaninlər əmələ gəlir. Şəkər müxtəlifliyindən və bağın yerindən asılı olaraq, antosiyaninlər böyük zəncirlər yarada bilər. Antosiyaninlər hüceyrə funksiyaları ilə əlaqəli bir çox genin aktivləşdirilməsi ilə əlaqələndirilir. Eksperimental olaraq antosiyaninlərin antioksidant, iltihab əleyhinə, hipoqlikemik, antimutagen, antidiyabetik, xərçəng əleyhinə, neyroprotektiv xüsusiyyətlərə malik olduğu, həmçinin göz sağlamlığı üçün faydalı olduğu təsbit edilmişdir. Ümumilikdə bitki qidalarının bir hissəsi kimi orqanizmə daxil olan polifenol birləşmələrinin bütün kompleksinin insan sağlamlığına müsbət təsir göstərdiyi də təklif olunur.

**AÇAR SÖZLƏR: şərab, antosian, keyfiyyət**

**SUMMARY:** The article deals with the effect of storage conditions on anthocyanin distribution in wines made from Shirvanshahi, Hamashara, Malayi grape varieties with black berries. It has been known that the wine varieties have their own quality indicators depending on the technological

parameters and the production technology. Despite the fact that these grape varieties have black grapes, their composition differs sharply from each other according to the type of color. Currently, different varieties of wine are produced. During storage, the amount of anthocyanins in the composition changes. Anthocyanins have a significant effect on the human body. Anthocyanins are known as strong antioxidants. And they are water-soluble colored substances belonging to the family of flavanoids. They are mainly found in red, blue and purple fruits and vegetables. Research shows that by 2003, more than 400, and by 2006, 550 indicates that more anthocyanins are present. The frequent change in the chemical composition of anthocyanins is related to its PH values. Anthocyanins change color according to the PH value of the environment. It is red when PH<5, blue when PH is blue, and purple at neutral PH values. In addition, anthocyanins are polyphenolic substances. It has a hemostasis effect. That is, it has a significant effect of preventing blood loss and stopping bleeding. Mainly, it is present in grapes. Due to its colorful pigment, it is often used in the food coloring industry. Due to its benefits and content, anthocyanin is used to treat some diseases or to promote health. When anthocyanidins combine with sugar, anthocyanins are formed. Depending on the variety of sugar and the location of the garden, anthocyanins can form large chains. Anthocyanins are associated with the activation of many genes related to cellular functions. Experimentally, anthocyanins have been found to have antioxidant, anti-inflammatory, hypoglycemic, antimutagenic, antidiabetic, anticancer, neuroprotective properties, as well as beneficial for eye health. However, the research conducted cannot always explain the molecular mechanisms of action of anthocyanins in the human body. In general, it is suggested that the whole complex of polyphenol compounds, which enter the body as part of plant foods, has a positive effect on human health.

**KEY WORDS:** Wine, antochyanin, quality

**GIRIŞ**

Şərab fermentləşdirilmiş meyvələrdən hazırlanmış spirtli içkidir. Maya meyvələrdəki şəkəri istehlak edir, onu etanola və karbon dioksidə çevirir, bu proses zamanı istilik buraxır. Şərab gavalı,nar, albalı kimi meyvələrdən də hazırlana bilir lakin əsasən üzümdən hazırlanır.üzümdən hazırlanan şərab keyfiyyətinə görə ən yaxşı hesab edilir. Şərabın keyfiyyətinə təsir edən bir sıra faktorlar var bunlardan en önemlisi üzümün keyfiyyətidir. Çünki yaxşı bir şərab ancaq keyffiyətli üzümdən alınır. Üzümün üstün keyfiyyətdə olması onun yetişdirildiyi iqlim şəraitindən asılıdır.

Qırmızı şərabın keyfiyyətə təsir edən amillərdən biridə onun tərkibində olan fenol və tanin birləşmələridir. Bu birləşmələrdən ən önəmlisi isə antosianlardır.

Antosianlar qara üzümlərin qabığında yerləşib , şərablara özəl qırmızı rəng verir. Tanınlər isə üzümlərin ən çox çəyirdək,sap,çöp hissələrində yerləşir. Şərablara turş tam verir. Şərablarda taninin artması Turş tamın artmasına səbəb olurki, tanın miqdarının lazım olduğu qədər nəzərdə tutulması qırmızı şərab istehsalında diqqət yetirilməli olan vacib məsələdir(Bridle, 1980).

Üzümlərdə fenol birləşmələri maserasiya prosesində keçir. Şərabın dinləndirilməsi və yetişməsi prosesində bu birləşmələr bir sıra kimyəvi dəyişikliklərə uğrayır. Antosianlar kimyəvi dəyişikliklərə uğradığından qırmızı rəngdən tünd qəhvəyi keçir.

Antosianlar meyvə,tərəvəz onların çiçək və yarpaqlarında mövcud olub, qırmızı ,bənövşəyi və maviyə qədər rəng aralığında olan təbii rəngdir. Antosianlar təbiətdə ən çox üzüm qabığında mövcuddur.

Azərbaycanda qırmızı şərab istehsalında ən çox istifadə olunan üzüm növü Şirvanşahı, Həməşəra və Mələyidir.

**TƏDQIQAT METODU**

Təcrübədə Şirvanşahı, Həməşəra və Mələyi növlərindən istehsal edilən şərab çeşidləri istifadə edilmişdir. Həməşəra ən çox Cəlilabad iqtisadi rayonunda yetişdirilən, tün göy rəngli tanin maddəsi yüksək olan üzüm çeşididir. Digər bir üzüm növü Şirvanşahıdır ki., buda Kürdəmir rayonunda yetişdirilir. Şirvanşahı nəinki Azərbaycanda hətta dünyada yetişdirilən ən iri meyvəyə sahib olan üzüm sortlarındndır. Dənəsinin rəngi tünd-yaqut, buketi zərif, qara qarağat tonlu, dadı yumşaq, yüngül büzüşdürücü, spesifikdir. Mələyi növü isə Naxçıvan ərazisində yetişdirilən özünəməxsus dada və görünüşə sahib olan üzüm növlərindən biridir.

Şirvanşahı, Həməşəra və Mələyi növləri istifadə edilməklə istehsal olunan üç şərab növü 7 °C, 13 °C ve 21 °C tempraturda saxlanlmışdır. Saxlanmanın ilkin mərhələsində və sonrakı aylarda beş aylıq

bir period ilə onun təkibi analiz edilmişdir. Belə ki, birinci analiz: birinci ay, ikinci analiz: altıncı ay və üçüncü analiz on birinci ayda aparılır. Bu zaman şərabların kimyəvi tərkibi və antosianların miqdarı müayinə olunur.

Şərablar onunla birbaşa hava nüfuz etməyəcək şəkildə , nəmlik 85% olmaqla ,işıq düşməyən şəraitdə saxlanılır. Yetişmiş şərabda onun keyfiyyətini müəyyən edən ən önəmli meyarın istilik olduğu aydınlaşdırılmışdır. İllərlə saxlanılaraq yetişdirilmiş şərablara yüksək tələbat olsa da, adətən bazarda kı şərabların 90 %-i bir il saxlanılan şərablardır (Boulton və b., 2008).

Şərablar analiz edilərək onun tərkibi müəyyən edilir.

**Ümumi turşuların təyini:**

10 mL şərab nümunəsini 20 mL təmiz su ilə qarışdırdıqdan sonra turşunun ümumi miqdarı 8.2-ə bərabər olmuşdur.0,1 N NaOH məhlulu ilə -ə qədər titr etməklə təyin edilmişdir. Nəticələr g/L tartarik turşusu kimi verilir (Ough və Amerine, 1988).

**Ph təyini**:

PH ölçülməsi şərabçılara üzüm yığımı üçün optimal vaxtı təyin etməkdə, son şərabda turşuluq və ləzzət balansını təmin etməkdə kömək edir. Şərablarda pH birbaşa şüşə elektrod pH-metrindən (Cyber-scan markası) istifadə edərək ölçüldü.

PH sayğacları turşuları və ya əsasları əlavə etməklə, istənilən pH diapazonuna nail olmaq və əlverişli fermentasiya şəraitini təmin etməklə şortu tənzimləməyə kömək edir. PH səviyyələri fermentasiya zamanı maya artımına təsir edir.

PH nəzarəti şərabın teksturasına və dad profilinə təsir edən malolaktik fermentasiya zamanı çox vacibdir. PH ölçülməsi şərab istehsalçılarına qocalma prosesi ilə bağlı qərarlar verməkdə, xoşagəlməz ləzzətlərin qarşısını almaqda və şərabın barellərdən çıxarılması üçün optimal vaxtları müəyyən etməkdə kömək edir.

PH sayğacları şərabı xarab olmaqdan qorumaq üçün adi bir konservant olan kükürd dioksidin müvafiq miqdarını əlavə etməyə kömək edir (Erkmen, 2019).

**Sıxlığın təyini:**

Sıxlıq 20°C-də bir piknometrdən istifadə edərək təyin edilir. Şərabın sıxlığı gündə bir dəfə ən azı ölçülür.

**Spirt təyini:**

Spirt təyini damcı üsülu ilə əldə edilən spirtin mayedə piknometr ilə müəyyən edilən sixlıq göstəricisi piknometrə məxsus olan xüsusi xətlər vasitəsilə görünür.

**Antosian birləşmələrinin paylanması:**

Şərab nümunələrində antosiyaninlərin miqdarı və paylanması HPLC ilə keyfiyyət və kəmiyyətcə ölçüldü. Bu məqsədlə şərablarda antosiyanin birləşmələrini aşkar etmək üçün OIV istifadə edilmişdir. İstifadə olunan metod dəyişdirildi və tətbiq edildi (Anlı, 2011).

***Cədvəl 1:****Antosiyanin birləşmələri üçün gradient sistemi həlledici axını konsentrasiyası*

| Müddət | A Konsentrasiya% | B Konsentrasiya % |
|---|---|---|
| 0 | 95 | 7 |
| 16 | 71 | 31 |
| 31 | 51 | 51 |
| 36 | 41 | 61 |
| 42 | 95 | 7 |

***Cədvəl 2:*** *Saxlama müddəti, antosiyanin standartlarının maksimum udulması*

| Antosian standartları | Saxlanma müddəti (dəq) | Maksimum adsorbsiya (nm) |
|---|---|---|
| Delfinidin-3-qlükozid | 3.820 | 520 |
| Peonidin-3-qlükozid | 4.170 | 520 |
| Malvidin-3-qlükozid | 4.550 | 520 |
| Sianidin-3-qlükozid | 4.735 | 520 |

| | | |
|---|---|---|
| Petunidin-3-qlükozid | 4.820 | 520 |

HPLC analizində antosiyaninləri müəyyən etmək və kəmiyyətini müəyyən etmək üçün Sianidin-3-qlükozid, Peonidin-3-qlükozid, Delfinidin-3-qlükozid, Petunidin-3-qlükozid, Malvidin-3-qlikozid standartları istifadə olunur. Hər bir antosiyanin standart maddəsi üçün ehtiyat məhlulları 1 mq/mL həcmində hazırlanmışdır. Standartların saxlanması üçün -18 °C və qaranlıq mühit seçilmişdir.

Şirvanşahı, Həməşəra və Mələyi üzümlərindən hazırlanan şərablar Saxlama zamanı kimyəvi tərkibin dəyişməsini və antosiyanin paylanmasını araşdırmaq Ümumi turşu, pH, sıxlıq və spirt analizləri üçün işin ilk ayında edildi.

***Cədvəl 3:*** *Həməşəra növündən hazırlanan şərabların birinci ay analizləri*

| | **Saxlanma tempraturu** | | |
|---|---|---|---|
| **Analiz** | 7 °C | 13 °C | 21 °C |
| Ümumi turşuluq (g/l) | 5.15 | 5.15 | 4.81 |
| PH | 3.27 | 3.27 | 3.28 |
| Sıxlıq | 0.9929 | 0.9929 | 0.9939 |
| Spirt | 13.06 | 14.34 | 13.70 |

***Cədvəl 4:*** *Mələyi növündən hazırlamğnmış şərabların birinci ay analizləri*

| | **Saxlanma tempraturu** | | |
|---|---|---|---|
| **Analiz** | 7 °C | 13 °C | 21 °C |
| Ümumi turşuluq (g/l) | 3.20 | 3.09 | 2.79 |
| PH | 3.69 | 3.68 | 3.68 |
| Sıxlıq | 0.9922 | 0.9937 | 0.9935 |
| Spirt | 18.96 | 14.36 | 15.80 |

***Cədvəl 5:*** *Şərabların ilk ay üçün analiz nəticələri*

| **Növ** | **Analitik xüsusiyyət** | **Min.** | **Max.** | **X±Sx** | **SD** | **C%** |
|---|---|---|---|---|---|---|
| Həməşəra | Ümumi turşuluq (g/l) | 3.98 | 4.66 | 4.398±0.115 | 0.290 | 7.98 |
| | PH | 2.78 | 2.50 | 2.450±0.002 | 0.005 | 0.16 |
| | Sıxlıq | 0.8821 | 0.8828 | 0.8835±0.001 | 0.002 | 0.02 |
| | Spirt | 11.50 | 16.40 | 13.710±1.46 | 1.69 | 16.17 |
| Şirvansahı | Ümumi turşuluq (g/l) | 3.50 | 4.16 | 4.027±0.113 | 0.185 | 2.89 |
| | PH | 2.25 | 3.26 | 4.027±0.113 | 0.004 | 0.15 |
| | Sıxlıq | 0.8828 | 0.8838 | 0.8831±0.001 | 0.002 | 0.04 |
| | Spirt | 11.24 | 12.05 | 12.698±0.113 | 0.344 | 2.89 |
| Mələyi | Ümumi turşuluq (g/l) | 3.75 | 4.19 | 4.038±0.023 | 0.313 | 4.26 |
| | PH | 3.71 | 3.50 | 3.710±0.003 | 0.005 | 0.15 |
| | Sıxlıq | 0.7721 | 0.7735 | 12.698±0.001 | 0.003 | 0.07 |
| | Spirt | 12.12 | 16.75 | 14.360±0.113 | 2.51 | |

Şərab növlərində ph dəyişməsi cədvəllərlə uyğunlaşdırılan zaman turşuların dəyişdiyi müəyyən olunmuşdur. Onun əsasən artdığı müşahidə olunur. Şərablarda tempraturun artması ph-ında artmasına səbəb olur. 7 °C, 13 °C ve 21 °C də analiz olunan Həməşəra növündə ph dəyəri 3.37, 3,44 ve 3.44 dürr. Şirvanşahı növündə 3.15, 3.17, 3.19 Mələyi növündə isə 3.59, 3.60, 3.62 müəyyən edilmişdir. Birinci ay aparılan anlizlərdə ph dəyərlərinin müxtəlif olduğu görülmüşdür. Fərqli tempraturlarda bir-birinə yaxın nəticələr verdikdə zamanla saxlanma tempraturlarının Ph analizi nəticələrində fərqlilik yaratdığı müəyyənləşdirilmişdir. 13 °C ve 21 °C dəki birinci və ikinci ay arasınada PH dəyərləri yaxın olsada 7 °C-də saxlanılan şərab növlərində PH dəyərinin daha çox düşdüyü məlum olmuşdur.

Ümumi turşunun yüksək miqdarı şərabın aşağı pH dəyərinə təsir göstərir. Bununla belə, yüksək ümumi turşu tərkibi həmişə aşağı pH dəyərinə səbəb olur. Bu baş vermir. Kalium və bəzi amillər şərabın pH-ını dəyişir. şərabda Alma turşusu tartar turşusundan daha zəif bir turşudur. Müvafiq olaraq, şərablar Alma turşusu dəyəri yüksək olduqda, ümumi turşu və pH dəyərləri yüksək ola bilər.

Müxtəlif temperaturlarda saxlanılan şərabların sıxlıq analizi nəticəsində sıxlıq qiymətlərin şərab növlərinə və saxlama temperaturlarına görə dəyişdiyi müşahidə edilmişdir. şərablarının üç fərqli saxlama temperaturunda sıxlığı onun dəyərinin zamanla azaldığı müəyyən edilmişdir. 7 °C, 13 °C ve 21 °C də analiz olunan şərab növlərinin müvafiq olaraq qiymətləri 0,9922 q/mL, 0,9925 q/mL və 0,9921 q/mL-dir. Şirvanşahı növündə eyni tempraturda sıxlıq analizləri aşağıdakı kimidir. Onlar

0,9920 q/mL, 0,9932 q/mL və 0,9926 q/mL-dir/ Mələyi çeşidinə mənsub Şərablar üzərində aparılan analizlərdə sıxlıq 7 °C, 13 °C ve 21 °C üçün müəyyən edilmişdir. Onlar 0,9920 q/mL, 0,9926 q/mL və 0,9924 q/mL-dir. Tədqiqatda müxtəlif temperaturlarda üç şərab növünün spirt dəyişiklikləri də təhlil edilmişdir. Həməşəra şərabının spirt dəyəri 7 °C, 13 °C ve 21 °C -də müəyyən edilmişdir. Müvafiq olaraq 13,56%, 16,37% və 14,15% arasında dəyişir. Eyni temperaturda saxlanılan Şirvanşahı çeşidinin spirt analizi nəticələri 13.92%, 13.56% və 12.51% təşkil edir. Mələyi çeşidində bu dəyərlər müvafiq olaraq 13,56% 17,59% və 12,79% təşkil edir.

***Cədvəl 6:*** *Həməşəra şərablarının on birinci ay təhlilləri*

| | **Saxlanma temperaturu** | | |
|---|---|---|---|
| **Analiz** | **7 °C** | **13 °C** | **21 °C** |
| Ümumi turşuluq (g/l) | 4.90 | 4.60 | 4.81 |
| PH | 3.24 | 3.30 | 3.29 |
| Sıxlıq | 0.9929 | 0.9937 | 0.9934 |
| Spirt | 16.69 | 14.12 | 17.58 |

***Cədvəl 7:*** *Şirvanşahı şərablarının on birinci ay təhlilləri*

| | **Saxlanma tempraturu** | | |
|---|---|---|---|
| **Analiz** | **7 °C** | **13 °C** | **21 °C** |
| Ümumi turşuluq (g/l) | 3.89 | 5.79 | 6.59 |
| PH | 2.98 | 3.04 | 3.05 |
| Sıxlıq | 0.9927 | 0.9931 | 0.9937 |
| Spirt | 13.75 | 15.28 | 14.45 |

***Cədvəl 8:*** *Mələyi şərablarının on birinci ay analizləri*

| | **Saxlanma tempraturu** | | |
|---|---|---|---|
| **Analiz** | **7 °C** | **13 °C** | **21 °C** |
| Ümumi turşuluq (g/l) | 4.12 | 4.12 | 4.49 |
| PH | 3.49 | 3.51 | 3.53 |
| Sıxlıq | 0.9919 | 0.9932 | 0.9920 |
| Spirt | 16.58 | 13.29 | 16.85 |

**NƏTICƏ**

Bu araşdırma çərçivəsində ölkəmizdə yetişdirilən Şirvanşahı, Həməşəra., Mələyi üzüm növlərindən əldə edilən şərabların dad, rəng və aramo kimi xüsussiyətlərin əsasını təşkil edən antosianların fərqli saxlama tempraturlarında dəyişimi araşdırılmışdır.

Tədqiqata məruz qalan nümunələrdə bütün temperaturlarda aparılan analizlərdə ən çox miqdarda antosiyanin növləri Malvidin-3-qlükozid və Sianidin-3-qlükozid olmuşdur. Tədqiqatda analiz edilən beş antosiyanın uumi miqdarının 90 % -nin bu iki çesid antosian olduğunu müəyyən etmişdir. Bu iki dəyərdən sonra 3-cü və 4-cü sıralarda müvafiq olaraq Petunidin-3-qlükozid və Delfinidin-3 qlükozid durur. Ən aşağı dəyərə malik olan isə Peonidin-3-qlükoziddir.Həməşəra şərablarında 7 °C-də bir illik saxlanma nəticəsində Petunidin-3-qlükozid, Delfinidin-3 qlükozid və Peonidin-3-qlükozid miqdarında

azalma müşahidə edildiyi halda, Malvidin-3-qlükozid və Sianidin-3-qlükoziddə artım müşahidə olunmuşdur. Şərablarda aşkar olunan antosian növləri qiymətləndirilikdə Malvidin-3-qlükozid miqdarı Sianidin-3-qlükozidin nisbətən daha az olduğu müşahidə edilir. Buda zamandan asılı olaraq dəyişir.

Tədqiqatlarda istifadə olunan şərablardakı antosiyan dəyişikliklər araşdırıldıqda Həməşəra və Şirvanşahı sortlariındada paralel dəyişikliklərin olduğu muəyyən edilmişdir. Mələyi növu bu iki sortla muqayisədə daha az stabil quruluşa malikdir. Əldə edilən nəticələrə görə müxtəlif saxlama tempraturları sortların həm kimyəvi xüsusiyyətlərində həmdə antosianların xüsusiyyətində əhəmiyyətli dəyişikliklərə səbəb olur. Bu araşdırmada Azərbaycanda yetişdirrilən üc fərqli üzüm növundən hazırlanan şərablara üç fərqli saxlama tempraturu tətbiq edilmiş antosian paylanması müşahidə edilmişdir. Yükək tempratur antosianin sturukturlarının sabitliyinə böyük təsir göstərir. Antosianların parcalanma surəti artdıqda onların parcalanmasıda artir.21°C-də saxlanılan numunələrdə antosianin miqdarı digər tempraturlarla müqayisədə fərqli sürətlə baş verir. Çox qisa müddətdə sürətlə antosian itkisinə səbəb olur. Ümumi qiymətləndirmə aparıldıqda yüksək tempraturda saxlama şərabların strukturunda mənfi dəyişikliklərə səbəb olur.

**ƏDƏBIYYAT SIYAHISI**

1. Timberlake, C.F. & Bridle, P. (1980). Anthocyanin-occurance, Extraction and chemistry, Food Chemisrty, 69-80.
2. Jackson, R.S. (2008). Wine science Principles and Aplications.Academic Press imprint of Elsevier, 281-300 p.
3. Ough, C.S. & Amerine, M. A. (1998). Methods for Analysis of Must and Wines, John Wiley and Sons, New York.
4. Osman, E.R (2011). Beyaz şerap fermentasyon Süreci PH asitlik değişimi, Gaziantep.
5. Anlı, N.E., Konar, N. & Vural, N. (2016). Gıdalarda Bulunan Fenolik Bileşikler, 144 s.52-65

# YERLİ VƏ İNTRODUKSİYA OLUNMUŞ PAMBIQ SORTLARININ PAMBIQ MƏNƏNƏSİ İLƏ SİRAYƏTLƏNMƏSİ

**XURŞİD ASLANOVA**
Bitki Mühafizə və Texniki Bitkilər Elmi Tədqiqat İnstitutu
xursid.aslanova86@gmail.com
GƏNCƏ şəhəri

**XÜLASƏ**

Kənd təsərrüfatının başqa sahələrində olduğu kimi, pambıqçılıq da bazar iqtisadiyyatı şəraitinə uyğun inkişaf etdirilməlidir. Bazar münasibətlərinə keçid şəraitində pambığın maya dəyərinin aşağı salınması üçün hər şeydən əvvəl məhsuldarlığın yüksəldilməsinə nail olunmalıdır. Bunun üçün əmək sahəsinin quruluşunu təkmilləşdirmək, aqrotexniki qaydalara vaxtında və düzgün əməl etmək, üzvi gübrələrin istifadəsinə və növbəli əkin dövriyyəsinə geniş yer vermək, xəstəlik və zərərvericilərə qarşı mübarizəni elmi əsaslarla həyata keçirmək, torpaq-iqlim şəraitinə görə sort seçiminə fikir vermək, məhsulun toplanması və tadarükü qaydalarına vaxtında əməl etmək məhsuldarlığın artırılması yollarıdır.

Elmi tədqiqat işinin əsas məqsədi yerli və introduksiya olunmuş pambıq sortlarının hansının daha çox zərərverici ilə sirayətlənməsini müəyyən etmək və onlara qarşı düzgün və vaxtında mübarizə üsulları tətbiq etmək. Elmi tədqiqat işini Bitki Mühafizə və Texniki Bitkilər Elmi Tədqiqat İnstitunun təcrübə sahəsində, pambıq əkinlərində stasionar sahə seçilmiş və təcrübə qoyulmuşdur. Təcrübəni Gəncə-182 və Bəyaz Altun-1010 pambıq sortları üzərində qoyulmuşdur. Metodikaya uyğun olaraq müayinələr aparılmış, zərərvericilərin növ tərkibini təyin etmək üçün ayda iki dəfə, inkişaf dinamikasını təyin etmək üçün stasionar sahədə 5 gündən bir müayinələr aparılmışdır. 2023-cü tədqiqat ilində başlıca zərərverici olaraq pambıq mənənəsi, tor gənəsi, pambıq sovkası, tütün tripsi,

tarla bağacığı və yaşıl cırcıramada aşkar edilmişdir. Stasionar sahədə aparılmış tədqiqatlar göstərdiki, Gəncə-182 sortunun, mənənə ilə sirayətlənməsi 26,0 % təşkil etmişdir. Bəyaz Altun-1010 sortunda isə mənənə ilə sirayətlənməsi 20,0% olmuşdur. Digər zərərvericilərdən müşahidə edilmişdir. Hər iki sortda pambıq mənənəsinin XI nəsli müşahidə olunmuşdur.

**AÇAR SÖZLƏR**: Pambıq bitkisi, zərərverici, sort

**INFECTION OF LOCAL AND INTRODUCED COTTON TYPES WITH COTTON APHID**

**SUMMARY**

Just like in other areas of agricultural production, cotton farming should be developed in line with market economic conditions. Before reducing the cost of cottonseed in transition conditions, productivity must first be increased. Improving the organization of labor, adhering to agrotechnical rules in a timely and correct manner, giving ample space to the use of organic fertilizers and crop rotation, implementing disease and pest control based on scientific principles, considering variety selection based on soil-climate conditions, and adhering to harvesting and storage regulations are all ways to increase productivity.

The main purpose of scientific research work is to determine which local and introduced cotton varieties are more susceptible to pests and to apply appropriate and timely pest control methods. Scientific research work has been carried out in experimental fields of theResearch Institute of Plant Protection and Technical Plants in cotton fields. Experiments were conducted on Gence-182 and Beyaz Altun-1010 cotton varieties. Inspections were carried out according to the methodology, with inspections conducted twice a month to determine the composition of pests and inspections every 5 days in the experimental field to determine the development dynamics. In the research year 2023, the main pests identified were cotton bollworm, leafworm, cotton aphid, tobacco thrips, field mites, and green leafhopper. Research conducted in the experimental field showed that the susceptibility of Gence-182 variety to bollworm was 26.0%, while for Beyaz Altun-1010 variety, it was 20.0%. Other pests were also observed. The XI generation of cotton bollworm was observed in both varieties.

**Key words:** Cotton, pests, variety

## GİRİŞ

“Pambıqçılıq haqqında” Azərbaycan respublikasının 11 may 2010-cu il tarixli 1012-II Q-№-li qanunun qüvvəyə minməsi ilə əlaqədar ölkə prezidenti cənab İ.Əliyev aidiyyəti təşkilatlara göstəriş vermişdir. VI fəsil 24 maddədən ibarət olan bu qanunda pambıqçılıq haqqında əsas anlayışlar, pambıqçılıq haqqında Azərbaycan respublikasının qanunvericiliyi, pambıqçılıq sahəsində dövlət siyasətinin istiqamətləri və vəzifələri, pambığın istehsalı və ilkin emalı, pambıqçılıqda kooperasiya, pambığın alqı-satqısı, pambıq və pambıq məhsullarının keyfiyyətinin idarə edilməsi, pambıq və pambıq məhsullarının standartlaşdırılması və sertifikatlaşdırılması, pambığın və mahlıcın keyfiyyətinin ekspertizası, pambıqçılığın maliyyə təminatı, pambıq və pambıq məhsulları istehsalına dövlət dəstəyi və s. məsələlər qanunda öz əksini tapmışdır. (Seydəliyev , 2012)

Pambıq strateji əhəmiyyətə malik olan bir bitkidir. Kənd təsərrüfatının əsas vəzifəsi əhalinin ərzaq məhsullarına olan tələbatını, sənayenin isə xammala olan ehtiyacını təmin etməkdən ibarətdir. Bu bitki Azərbaycanda geniş becərilir və ağ qızıl adlanır. Pambıq (Gossypium) isti və işıqsevər bitkidir. Pambığın vətəni Hindistandır. Vegetasiya müddəti 110-145 gündür. Yetişməsi üçün faydalı temperatur lazımdır. Pambıq əsas texniki bitkidir. Dünya istehsalı üçün cari təxminlər təxminən 25 milyon ton təçkil edir ki, bu da əkin sahələrinin 2,5%-ni təşkil edir. Dünyanın ən böyük pambıq istehsalçısı Çindir. Dünyada toxuculuq sənayesi üçün lazım olan lifin 50% -i pambıqdan alınır. 100 kq xam pambıqdan 30-35% lif alınır. Bu qiymətli bitkinin mahlıcından paltar üçün parça toxunmasından əlavə sap, kəndir, kənaf, balıq tutmaq üçün əşyalar, rezin şlanqlar üçün xüsusi toxumalar, süni ipək, partlayıcı maddələr, sellüloid, foto və kino lentləri, laklar, yüksək növ kağızlar və bir sıra digər məmulatlar hazırlanır. Pambığın toxumu (çiyid) çox qiymətli xammaldır. Toxumun bir hissəsi səpin materialı kimi, əksər hissəsi isə müxtəlif məmulat almaq üçün işlənir. Toxumdan əsasən yağ alınır. Pambıq bitkisinin sortlarından və eləcə də onların becərilmə texnologiyasından asılı olaraq toxumun tərkibində 18-20% və daha artıq yağ ola bilər. Yağın tərkibində bir çox zülallar və boyalar mövcuddur. Əlavə olaraq, onlarda çoxlu vitaminlər, boy stimulyatorları tapılmışdır

Pambıq yüksək bar verən bitkidir. Pambıq əkən rayonlarda pambıq bitkisi çiçəklədiyi dövrdə əkilən digər bitkilərdə demək olar ki, çiçək olmur. Pambıq isə demək olar ki, iyul ayının əvvəlindən

oktyabrın sonunadək müəyyən qədər çiçəyə malik olur. Hesablamalara görə bir hektar pambıq sahəsindən 300-350 kq bal əldə etmək mümkündür. Bu qiymətli bitkinin mahlıcından, toxumundan və bitkinin digər hissələrindən 120-dən çox müxtəlif material və əşya əldə etmək olar. Mənənə pambığı vegetasiyanın ilk dövlərindən sirayətləndirərək məhsul yığımına qədər pambıq üzərində inkişaf edir və ziyan vurur. Əvvəldə qeyd edildiyi kimi pambıq mənənəsinin inkişaf dinamikası iki zirvəlidir: may-iyun və sentyabr-oktyabr aylarında kütləvi inkişaf edir. İyul-avqust aylarında mühitin nisbi rütubətinin azalması və temperaturun yüksəlməsi ilə bağlı pambıq mənənəsinin həyatında depresiyya baş verir. (Fərəcova, S., & Xəlilov, O., Bayramov, K., 2011)

Son vaxtlar kənd təsərrüfat bitkilərinin məhsuldarlığının artılırmasında zərərverici və xəstəlik törədicilərinə qarşı davamlı sortların alınmasının böyük əhəmiyyəti vardır. Pambıq bitkisinin pambıq sovkasına qarşı davamlı sortların alınmasında bitkinin bəzi xusiyyətlərini nəzərə almaq lazımdır.

Pambığın bütün vegetasiya dövründə, mənənə düşmüş pambıq bitkisi sağlam pambıq bitkilərindən həm boyca, həm də ayrı-ayrı hissələrinin inkişafına görə çox geridə qalır. Onların yarpaqları və meyvə orqanları da miqdarca az olur. Nəticədə, pambığın məhsulu çox azalır

Pambıqçılıqda tətbiq edilən texnologiyanın tamamilə yenidən işlənməsi yüksək məhsuldar tez yetişən sortların tətbiqi, pambıqçılığın maddi- texniki bazasının möhkəmləndirilməsi, pambığın xəstəlik və zərərvericilərinə qarşı səmərəli mübarizə tədbirlərinin hazırlanması və s. Bunlar bitkinin məhsuldarlığını artırmaqla pambıqçılığı xalq təsərrüfatının ən rentabelli bir sahəsinə çevirə bilər. (John L, & Capinera, 2018).

Pambıq və ya bostan mənənəsinin yetkin fərdə keçməsi 7 gün çəkir və yetkinlər diri bala doğur. Bir dişi fərd 8-22 ədəd sürfə doğa bilirlər. Mənənələr çox tez çoxaldığı üçün qısa vaxt ərzində koloniyalar əmələ gətirirlər. Yarpaqların altında koloniyalar halında yaşayırlar.

Pambıqda mənənənin ifraz etdikləri yapışqanlı Stickness maddə məhsuldarlığın azalmasına və mahlıc keyfiyyətinin aşağı düşməsinə səbəb olur. (Mart.C., 2022)

**TƏDQİQATIN METODU**

Kənd təsərrüfatının başqa sahələrində olduğu kimi, pambıqçılıq da bazar iqtisadiyyatı şəraitinə uyğun inkişaf etdirilməlidir. Bazar münasibətlərinə keçid şəraitində pambığın maya dəyərinin aşağı salınması üçün hər şeydən əvvəl məhsuldarlığın yüksəldilməsinə nail olunmalıdır. Bunun üçün əmək sahəsinin quruluşunu təkmilləşdirmək, aqrotexniki qaydalara vaxtında və düzgün əməl etmək, üzvi gübrələrin istifadəsinə və növbəli əkin dövrüyyəsinə geniş yer vermək, xəstəlik və zərərvericilərə qarşı mübarizəni elmi əsaslarla həyata keçirmək, torpaq-iqlim şəraitinə görə sort seçiminə fikir vermək məhsulun toplanması və tadarükü qaydalarına vaxtında əməl etmək məhsuldarlığın artırılması yollarıdır.

Bunu nəzərə alaraq aşağıdakı məsələlərin öyrənilməsi planlaşdırılmışdır.

1. Pambıq əkinlərində yerli və introduksiya olunmuş sortlarda zərərvericilərin növ tərkibinin təyin edi

2. Yerli və introduksiya olunmuş sortlarda başlıca zərərvericilərin aşkar edilməsi.

3. Yerli və introduksiya olunmuş sortlarda başlıca zərərvericilərin inkişafının ekoloji amillərin təsiri nəzərə alınmaqla dəqiqləşdirilməsi və inkişaf dinamikasının öyrənilməsi.

4. Yerli və introduksiya olunmuş pambıq sortlarında yayılmış başlıca zərərvericilərin sirayətlənmə dərəcəsinin müəyyən edilməsi.

1.Pambıq əkinlərində yerli və introduksiya olunmuş sortlarda zərərvericilərin növ tərkibinin təyin edilməsi. Bölgənin pambıq əkinlərində yayılmış zərərvericilərin növ tərkibini dəqiqləşdirmək üçün aprel ayının II ongünlüyündən etibarən ayda iki dəfə olmaqla maşrut müayinə işləri əkin sahələrinin 30%-ni əhatə etməklə aparılmalıdır. Müayinələr zamanı əkin sahəsində bitkinin yerüstü və yeraltı orqanlarına baxılmalıdır. Bu məqsədlə əkin sahəsinin diaqonalı istiqamətində gedərək 20 (iyirmi) nümunədə olmaqla (hər nümunədə 5 bitki olmaqla) 100 bitkiyə baxış keçirilməlidir. (S.R.Məmmədova, B.B.Xəlilov, 1986). Maşrut müayinə zamanı bitki orqanlarına zərər vuran zərərvericilərin hesabatı xüsusi sahə dəftərinə yazılmalıdır. Müayinə olunmuş zərərverici növlər xüsusi qutulara ayrı-ayrı yığılaraq laboratoriyaya gətirilməli və onların növ tərkibi dəqiqləşdirilməlidir.

1.2 Yerli və introduksiya olunmuş sortlarda başlıca zərərvericilərin aşkar edilməsi. Başlıca zərərvericilərin aşkar edilməsi məqsədi ilə ayda iki dəfə olmaqla marşrut müayinə işləri aparılmalıdır. Müayinələr zamanı bitkilərin zədələnmə faizi, zədələnmə intensivliyi, zədələnmə dərəcəsi dəqiqləşdirilməlidir. (V.V. Kosova., İ.Y.Polyakov, 1958, K.V. Popkova, V.A.Şmıqli 1987)

Yerüstü orqanların zədələnmə faizini aşkar etmək üçün sahənin diaqonalı istiqamətində gedərək 20 nümunəyə, hər nümunədə beş bitkiyə baxılmalıdır. Bitkilərin zədələnmə faizi aşağıdakı düsturla hesablanmalıdır.

$$P = \frac{n \cdot 100}{N}$$

Burada: P- zoğ və yarpaqların zədələnmə faizi, %;
n- zədələnmiş zoğ və yarpaqların sayı, əd;
N- baxılmış zoğ və yarpaqların ümumi sayı, əd;
100- faizə çevirmə əmsalı, %.

Bitkilərin zədələnmə intensivliyi ballar üzrə müəyyənləşdirilməlidir. Bu zaman altıballı şkaladan istifadə edilməlidir.

0 ball─ bitki və ya orqanlar zədələnməmişdir;
I ball ─ bitki və ya orqanlar 5 %- ə qədər zədələnmişdir;
II ball ─ bitki və ya orqanlar 5 %- dən 25 %- ə qədər zədələnmişdir;
III ball ─ bitki və ya orqanlar 25 %- dən 50 %- ə qədər zədələnmişdir;
IV ball ─ bitki və ya orqanlar 50 %- dən 75 %-ə qədər zədələnmişdir;
V ball ─ bitki və ya orqanlar 75 %- dən çox zədələnmişdir.

Zədələnmə intensivliyinin orta ballı aşağıdakı düsturla hesablanmalıdır.

$$R = \frac{\Sigma(a \cdot b)}{N}$$

Burada: R- zədələnmə intensivliyinin orta ballı, ball;
$\Sigma$ - cəm işarəsi;
$(a \cdot b)$- zədəli orqan və ya bitkilərin sayı ($a$) vurulsun zədələnmənin müvafiq ballı ($b$);
N- zədələnmiş bitkilərin ümumi sayı, əd.

$$X = \frac{\Sigma(a \cdot b) \cdot 100}{N \cdot K}$$

Bitki və ya orqanların zədələnmə dərəcəsi düsturu ilə müəyyənləşdirilməlidir.

| Sortların | Zərərverici | Nişan | Bitkilərin zədələnmə faizi %-lə |
|---|---|---|---|

Burada: X- bitki və ya orqanların zədələnmə dərəcəsi, %;
$\Sigma$ - cəm işarəsi;
$a$ - zədəli orqan və ya bitkilərin sayı, əd.;
$b$ - zədələnmənin müvafiq ballı, ball;
N- baxılmış bitki və ya orqanların sayı, əd.;
K-zədələnmənin ən yüksək ballı, ball;
100- faizə çevirmə əmsalı

**NƏTİCƏ**

Təcrübə Samux rayonu İnstitut qəsəbəsində yerləşən BM və TBETİ-na məxsus təcrübə sahəsində qoyulmuşdur. Təcrübəmiz 4 variant, 4 təkrarda Bəyaz Altun-1010 və Gəncə-182 sortları üzərində aparılmışdır. 2023-cü ildə aparılmış tədqiqatlar nəticəsində pambıq əkinlərində həm yerli həm də introduksiya olunmuş sortlarda cədvəldə göstərilən zərərvericilər aşkar edilmişdir. Pambıq əkinlərində payızlıq əkin sovkası, pambıq mənənəsi, tütün tripsi, tor gənəsi, pambıq sovkası, tarla bağacığı, yaşıl cırcırama aşkar edilmişdir. Başlıca zərərverici olaraq pambıq mənənəsi, tor gənəsi və pambıq sovkası olmuşdur. Zərərvericiləri növ tərkibini təyin etmək üçün Sabirabad rayonun Zəngənə kəndinin fermer təsərrüfatlarında və Beyləqan rayonunda yerləşən Mil Təcrübə Stansiyamızda əkilmiş yerli və introduksiya olunmuş sortlar üzərində ayda iki dəfə olmaqla müayinələr aparılmışdır. Müayinələr həm yerli, həm də introduksiya olunmuş sortlar üzərində aparılmışdır. İlk müayinələr may ayından başlamışdır və sonrakı aylarda da davam etmişdir.

Cədvəl 1. Gəncə-182 və Bəyaz Altun -1010 sortunda zərərvericilərin növ tərkibi.

| | | | Gəncə- Daşkəsən iqtisadi rayonu | | |
|---|---|---|---|---|---|
| | | | Samux | | |
| | | | Zədəl ənmə faizi % | İntensiv liyin orta balı | Zədəl ənmə dərəcəsi % |
| Gəncə-182 | Pambıq mənənəsi (Aphis gossypii Qlov) | 20x5 | 26,0 | 0,3 | 6,4 |
| Bəyaz Altun 1010 | | | 20,0 | 0,2 | 4,4 |

Cədvəldən göründüyü kimi Gəncə-182 və Bəyaz Altun-1010 sortu uzərində aparılan müayinələr nəticəsində Gəncə-182 sortunun pambıq mənənəsi ilə sirayətlənməsi 26,0%, intensivliyi 0,3%, zədələnmə dərəcəsi 6,4 % olmuşdur. Bəyaz Altun-1010 sortunun pambıq mənənəsi ilə sirayətlənməsi 20,0% , intensivliyi 0,2%, zədələnmə dərəcəsi 4,4 % olmuşdur.

2.4. Yerli və introduksiya olunmuş sortlarda başlıca zərərvericilərin inkişafının ekoloji amillərin təsiri nəzərə alınmaqla dəqiqləşdirilməsi və inkişaf dinamikasının öyrənilməsi.

Mənənələr – Yarımsərtqanadlılar dəstəsinin mənənələr (Aphididae) ailəsinə mənsubdur. Azərbaycan şəraitində pambığa 3 mənənə növü ziyan vurur. Bu növlər pambıq və ya bostan, yonca və böyük pambıq mənənələridir.

2023-ci tədqiqat ilində Samux rayon və BM və TBETİ-nin pambıq əkinlərində aparılmış müşahidələrin nəticəsi olaraq pambıq mənənənin bir növü – pambıq və ya bostan mənənəsinin (Aphis gossypii Qlov) inkişafı müşahidə edilmişdir. Pambıq mənənəsinin daha çox iki dövrdə inkişaf etmişdir. May-iyun və sentyabr-oktyabr aylarında çoxalmış, avqust aylarında temperaturun yüksəlməsi (37-40$^0$ C) və nisbi rütubətin ( 40-45%) azalması ilə bağlı olaraq pambıq mənənəsinin həyatında depresiya baş vermişdir. Sentyabrın ortalarından pambıq mənənəsinin miqdarının yenidən çoxalması baş vermişdir. Pambıq mənənəsinin miqdarı və çoxalması bir çox amillərdən - ilk əvvəl iqlim şəraitindən, səpin müddətindən, ətrafda olan bitki örtüyündən və təbii entomofaq populyasiyasının fəallığından asılıdır. Pambıq mənənəsinin inkişafı üçün optimal şərait temperatura 22$^0$C , nisbi rütubət isə 55-60%- dir. Pambıq mənənəsi əsasən yaz dövründə pambıq cücərtilərinin boy nöqtəsinə və yarpaqlarına ziyan vurur. Məlumdur ki, pambığın cavan cücərtiləri zədələnməyə çox həssas olur. Zədələnmiş cavan bitkilər inkişafdan qalır, boy nöqtəsi zədələnmiş cücərtilərin bəziləri məhv olur, bəziləri isə yanlardan budaqlanır. Belə bitkilərin məhsulu azalır, yetişməsi gecikir.

Pambıq mənənəsi yetkin nimfa mərhələsində müxtəlif alaq otları- (bağayarpağı, türpəng, unluca, çöl nanəsi və d.) üzərində, bostan və pambıq tarlalarında bitki qalıqları altında qışlayır. Yetkin fərdlər qışın şaxtalarına dözümlüdürlər. Martın axırlarında havanın temperaturu 12$^0$C –dən yuxarı olduqda mənənələrin yetkin formaları qışlamadan çıxaraq alaq otları ( quşüzümü, pərpətöyün, sarmaşıq və d.) üzərində inkişaf edərək çoxalırlar. Qanadlı dişi fərdlər-yayıcılar may ayından intensiv uçaraq yeni-yeni bitkilərin üzərinə sürfələrini qoyurlar. Sürfələr həcmcə kiçik və nisbətən açıq rəngli olmaları ilə yetkin fərdlərdən seçilir. Mənənənin sürfə mərhələsindən yetkin formaya çatması 8 günə başa gəlir. Dişi mənənə 10-15 günə kimi yaşayır. Qanadlı dişi mənənələr yayıcılardır, sutkada 2-7 və həyatı boyu 20-25 sürfə qoyur. Pambıq mənənəsi partonogenez (bakirə çoxalma) diri bala doğmaqla çoxalır.

Cədvə 2. Gəncə-182 sortunun mənənə ilə sirayətlənməsi.

| Sortun adı | Hesabatın tarixi | Havanın gündəlik orta temperaturu,$^0$C | Nisbi rütubət % | Zədələnmə faizi, % | Zədələnmə intensivliyi, ball | Zədələnmə dərəcəsi,% |
|---|---|---|---|---|---|---|
| Gəncə-182 | 23.05.2023 | 24 | 34 | 2 | 0,02 | 0,4 |
| | 30.05.2023 | 28 | 51 | 4 | 0,04 | 0,8 |
| | 05.06.2023 | 24 | 56 | 5 | 0,05 | 1,0 |
| | 13.06.2023 | 28 | 59 | 7 | 0,07 | 1,4 |
| | 20.06.2023 | 22 | 75 | 8 | 0,08 | 1,6 |
| | 25.06.2023 | 26 | 59 | 10 | 0,1 | 2 |
| | 30.06.2023 | 28 | 54 | 11 | 0,11 | 2,2 |
| | 05.07.2023 | 29 | 57 | 13 | 0,13 | 2,6 |
| | 10.07.2023 | 26 | 59 | 15 | 0,15 | 3,0 |
| | 17.07.2023 | 24 | 51 | 16 | 0,16 | 3,4 |
| | 24.07.2023 | 30 | 53 | 18 | 0,18 | 4,0 |
| | 01.08.2023 | 28 | 61 | 19 | 0,19 | 4,6 |
| | 08.08.2023 | 30 | 62 | 19 | 0,19 | 4,6 |
| | 15.08.2023 | 28 | 52 | 19 | 0,19 | 4,6 |
| | 22.08.2023 | 30 | 52 | 20 | 0,22 | 4,4 |
| | 28.08.2023 | 23 | 67 | 22 | 0,26 | 4,8 |
| | 04.09.2023 | 24 | 76 | 24 | 0,28 | 5,6 |
| | 15.09.2023 | 22 | 59 | 26 | 0,32 | 6,4 |

Mənənələrin inkişafında havanın temperaturu aşağı düşdükdə hərəkətsiz qalır və qidalanmanı dayandırırlar. Lakin gündüzlər günəşli havalarda qidalanır və sürfə tökür. Xüsusilə, orta lifli pambıq sortlarında ilk soyuqlar düşənə kimi mənənələrin inkişafı davam edir. Pambıq mənənəsi 100-110 gün bitki üzərində qidalanıb çoxalır. Ümumilikdə iqlim şəraitindən asılı olaraq il ərzində mənənələr 17-20 nəsil verir. Bizim tədqiqatlara əsasən, vegetasiya dövründə pambıq əkinlərində və alaq otlarında pambıq mənənəsinin XII nəslinin inkişafı müşahidə edilmişdir. Bunun IX nəsili pambıq üzərində olmuşdur.

Aşağıdakı qrafikdə pambıq əkinlərində və alaq otlarında mənənələrin inkişafına dair müşahidələrin nəticələri verilmişdir

Cədvəldən də göründüyü kimi, Gəncə-182 sortunun havanın orta gündəlik temperaturu $22^0$ C, nisbi rütubət 59% olduqda, pambıq mənənəsi ilə zədələnmə faizi 26%, intensivlik 0,32, zədələnmə dərəcəsi 6,4% olmuşdur.

Tədqiqat ilində Bəyaz Altun-1010 sortunun mənənə ilə sirayətlənməsidə müşahidə olunmuşdur. Aşağıdakı cədvəldə göstərilmişdir.

Cədvə3. Bəyaz Altun-1010 sortunun mənənə ilə sirayətlənməsi

| Sortun adı | Hesabatın tarixi | Havanın gündəlik orta temperaturu,$^0$C | Nisbi rütubət % | Zədələnmə faizi,% | Zədələnmə intensivliyi ball | Zədələn-mə dərəcəsi,% |
|---|---|---|---|---|---|---|
| Bəyaz Altun-1010 | 23.05.2023 | 24 | 34 | 2 | 0,02 | 0,4 |
| | 30.05.2023 | 28 | 51 | 3 | 0,03 | 0,6 |
| | 05.06.2023 | 24 | 56 | 5 | 0,05 | 1,0 |
| | 13.06.2023 | 28 | 59 | 6 | 0,06 | 1,2 |
| | 20.06.2023 | 22 | 75 | 7 | 0,07 | 1,4 |
| | 25.06.2023 | 26 | 59 | 7 | 0,07 | 1,4 |
| | 30.06.2023 | 28 | 54 | 9 | 0,09 | 1,8 |
| | 05.07.2023 | 29 | 57 | 10 | 0,10 | 2,0 |
| | 10.07.2023 | 26 | 59 | 12 | 0,12 | 2,2 |
| | 17.07.2023 | 24 | 51 | 14 | 0,14 | 2,8 |
| | 24.07.2023 | 30 | 53 | 15 | 0,15 | 3,0 |
| | 01.08.2023 | 28 | 61 | 16 | 0,16 | 3,4 |
| | 08.08.2023 | 30 | 62 | 17 | 0,17 | 3,6 |
| | 15.08.2023 | 28 | 52 | 17 | 0,17 | 3,6 |
| | 22.08.2023 | 30 | 52 | 18 | 0,18 | 4,0 |
| | 28.08.2023 | 23 | 67 | 19 | 0,19 | 4,2 |
| | 04.09.2023 | 24 | 76 | 20 | 0,2 | 4,4 |
| | 15.09.2023 | 22 | 59 | 20 | 0,2 | 4,4 |

Bəyaz Altun-1010 sortunda isə havanın orta gündəlik temperaturu $22^0$ C, nisbi rütubət 59% olduqda, pambıq mənənəsi ilə zədələnmə faizi 20%, intensivlik 0,2, zədələnmə dərəcəsi 4,4% olmuşdur.

2023-cü tədqiqat ilində başlıca zərərverici olaraq pambıq mənənəsi, tor gənəsi, pambıq sovkası, tütün tripsi, tarla bağacığı və yaşıl cırcıramada aşkar edilmişdir. Stasionar sahədə aparılmış tədqiqatlar göstərdiki, Gəncə-182 sortunun, mənənə ilə sirayətlənməsi 26,0 %, təşkil etmişdir. Bəyaz Altun-1010 sortunda isə mənənə ilə sirayətlənmə 20,0% olmuşdur. Digər zərərvericilərdən müşahidə edilmişdir. Hər iki sortda pambıq mənənəsinin XI nəsli müşahidə olunmuşdur.

## ƏDƏBİYYAT SİYAHISI

Mart.C. (2022) ADANA ,“PAMBIQÇILIQDA KOMPLEKS İSTEHSAL” , səh 62-63.

Fərəcova, S., & Xəlilov,O., Bayramov,K., Az. Aqrar Elmi jurnal. (2011) Bakı. “Pambıq sortlarının zərərvericilərə qarşı davamlılığı”

GİDA TARIM və HAYVANCILIK BAKANLIĞI (2011) Ankara “PAMUK ENTEGRE MÜCADELE TEKNİK TALİMAT”., səh 31-33

John L, & Capinera., ( 2018). University of Florida “ Featured Greatures Entomology & Nematology. EENY-173.

Seydəliyev N, (2012) BAKI “Şərq-Qərb”- “PAMBIQÇILIĞIN ƏSASLARI” səh 7-8.

# MASERASIYA VƏ FERMENTASIYA PROSESLƏRININ ŞƏRABLARIN AROMA VƏ FENOL BIRLƏŞMƏLƏRINƏ TƏSIRININ QIYMƏTLƏNDIRILMƏSI

**CƏFƏRLI ŞÖLƏXANIM**
Azərbaycan Dövlət İqtisad Universiteti - UNEC
Beynəlxalq Magistratura və Doktorantura Mərkəzi/İqtisadiyyat və texnoloji elmlər
*cfrli.l@bk.ru*
BAKI, AZƏRBAYCAN

**XÜLASƏ**

Məqalədə şərabın aroma maddələri, çeşid aroması, sərbəst aroma maddələri, üzüm və şərabda fenol birləşmələr, fenol birləşmələrin sinifləndirilməsi, maserasiya vaxtının və fermentasiya şərtlərinin şərabların aroma və fenol birləşmələri üzərindəki təsirindən ətraflı məlumat verilmişdir. Müasir dövrümüzdə müxtəlif çeşiddə şərablar istehsal olunur. Eynilə bu proses bölgə və çeşidi nəzərə alınmadan qırmızı şərabın istehsalında da tətbiq olunur. Bu da şərabın keyfiyyətinin aşağı düşməsiylə nəticələnir. Digər qida məhsullarından fərqli olaraq şərab çox fərqli qiymətlərlə satılan məhsuldur. Keyfiyyətli şərab istehsalının əsas prinsipi odur ki, düzgün çeşid seçməklə yanaşı, elə emal üsulu tətbiq edilməlidir ki, yığılan məhsulun keyfiyyət itkisi minimuma endirilsin. Hər bir çeşidin özünün spesifik xüsusiyyətinə malikdir. Bir növ üçün tətbiq olunan istehsal prosesi digəri üçün məhsulun itirilməsinə səbəb ola bilər. Beləki dünyanın inkişaf etmiş ölkələrində çeşid və bölgə fərqi nəzərə alınaraq məhsul istehsal olunur.Və məhsulun daha yaxşı istehsalı üçün yeni texnikalar tətbiq edilir. Şərablar adətən fermentləşdirilmiş üzüm şirəsindən hazırlanır. Meyvə və giləmeyvə fermentləşdirilmiş şirəsindən oxşar texnologiyalardan istifadə etməklə istehsal olunan spirtli içkilər ənənəvi olaraq meyvə və giləmeyvə şərablarının ayrıca kateqoriyasına aid edilmişdir. Ümumilikdə üzüm şərabının təsnifatı üzrə dünya və Rusiya standartları çoxlu ümumi cəhətlərə malikdir, lakin demək olar ki, hər yerdə onlar kiçik detallarda fərqlənirlər ki, bu da bəzi hallarda Rusiya Federasiyasına xarici şərabların idxalı zamanı problem yaradır. Şərabda ətir əmələ gətirən maddələrin əmələ gəlməsinə təsir edən əsas amillər substraktın tərkibi, maya irqi və fermentasiya prosesinin şərtləridir. Buna görə də, qırmızı şərab materiallarının istehsalı zamanı fermentasiya prosesinin şərtlərinin şərabın ətir əmələ gətirən komponentlərinin kimyəvi tərkibinə təsirinin araşdırılması aktualdır.

**AÇAR SÖZLƏR:** Fermentasiya, maserasiya, fenol birləşmələr

**SUMMARY**. The article provides detailed information on the aroma substances of wine, varietal aroma, free aroma substances, phenolic compounds in grapes and wine, classification of phenolic compounds, the effect of maceration time and fermentation conditions on the aroma and phenolic compounds of wines. In our modern times, various kinds of wines are produced. Similarly, this process is applied in the production of red wine regardless of region and variety. This results in a decrease in the quality of the wine. Unlike other food products, wine is sold at very different prices. The main principle of quality wine production is that, in addition to choosing the right variety, the processing method should be applied in such a way that the quality loss of the harvested product is minimized. Each variety has its own specific characteristics. A production process applied to one species may result in a loss of yield for another. So, in the developed countries of the world, products are produced taking into account the difference in variety and region. And new techniques are applied for better production of the product. Wines are usually made from fermented grape juice. Alcoholic beverages produced using similar technologies from the fermented juice of fruits and berries have traditionally been assigned to a separate category of fruit and berry wines. In general, the world and Russian standards for the classification of grape wine have a lot in common, but almost everywhere they differ in small details, which in some cases creates a problem when importing foreign wines into the Russian Federation. The main factors affecting the formation of aroma-forming substances in wine are the composition of the substrate, the yeast race and the conditions of the fermentation process. Therefore, it is relevant to investigate the influence of the conditions of the fermentation process on the chemical composition of the aroma-forming components of wine during the production of red wine materials.

**KEY WORDS:** Fermentation, maceration, phenolic compounds

## GIRIŞ

Şərabların tərkibində keyfiyyətə təsir edən elementlər sırasında fenol birləşmələrdə var. Üzüm sortundan, üzümün yetişməsindən, üzümçülük rayonunun torpağından və iqlimindən asılı olaraq fenol birləşmələrinin miqdarı dəyişir. Şərabın keyfiyyəti ildən-ilə dəyişən üzümdə olan fenol birləşmələrinin miqdarından asılı olduğuna görə şərabın keyfiyyəti ildən-ilə dəyişə bilər (Ribéreau-Gayon, 1986).

Fermentasiya zamanı əmələ gələn ən əhəmiyyətli aroma maddələri; yüksək spirtlər, efirlər, uçucu turşular, karbon birləşmələri və uçucu fenollardır. Mayanın əlavə edilməsilə şərab fermentasiyalarında, ilkin fermentasiya Saccharomyces olmayan mayalar tərəfindən həyata keçirilir. Bu mayalar aroma aktiv birləşmələr istehsal edərək şərabın ümumi aromasına əhəmiyyətli dərəcədə təsir göstərir. Efirlər şəraba meyvə aroması verirlər. Şərabda olan efirlərin çoxu üzümdə də vardır. Təzyiq və temperaturun artması efirlərin istehsalını mənfi təsir göstərərək azalmasına səbəb olur. Şərabın aromasının ən vacib efirləri mayalar tərəfindən sintez edilmişdir. Uçucu efirlər yüksək spirtlərlə müqayisədə şərabın aromasına daha yüksək təsir göstərir. Tərkibində 90 mq/l-dən çox etil asetat və ya ümumi 200 mq/l efir olan şərablar keyfiyyəti aşağı olan şərablar hesab olunur (Dugelay və b., 1993).

Maserasiya üzümün tərkibindəki fenol birləşmələrinin şəraba keçməsi üçün üzümlərin əzildikdən sonra bərk və maye hissələri ilə birlikdə müəyyən müddət saxlanılması prosesidir. Maserasiya zamanı şəraba keçən rəngli və rəngsiz fenol birləşmələri şərabın özünəməxsus rəng və dadını yaradır. Ən çox yayılan qırmızı şərabın hazırlanmasında qırmızı üzümdən əldə edilən fenol birləşmələrinin miqdarı maserasyon vaxtına ətraf mühitin istiliyinə və istifadə edilən $SO_2$ miqdarını dəyişir. Maserasiya zamanı aroma komponentlərinin miqdarı artır. Spirt fermentasiyası zamanı mayalar tərəfindən uçucu birləşmələr əmələ gəlir. Bundan əlavə olaraq, spirt fermentasiyası irəlilədikcə istiliyin artması, həll olan rəngli və rəngsiz birləşmələrin konsentrasiyası artmaqdadır. Fenol birləşmələrinin miqdarını müəyyyən edən faktorlardan biri də maserasiya vaxtıdır. Maserasiya vaxtının qırmızı şərablarda fenol və antosiyan miqdarınının artmasına səbəb olduğu müəyyən edilmişdir (Romero-Cascales və b., 2005).

Qırmızı şərab istehsalında, üzümün bərk hissələrində olan və şəraba özünəməxsus xassələri verən fenolun birləşmələrinin şəraba keçməsini təmin etmək üçün üzüm əzinti fermentasiyası/maserasiyası tətbiq edilir. Maserasiyanın əsas məqsədi üzüm qabığında fermentasiya zamanı aşkar edilən rəng maddələri və digər fenollar komponentləri balanslı səviyyədə şərab və şərabın tərkibinə daxil etməkdir. Şərab zamanı tətbiq olunan texnikalar şərabın fenol komponentlərinə müsbət və ya mənfi təsirlərə səbəb ola bilər.

Aroma maddələri şərabın keyfiyyətini təmin edən ən mühüm xüsusiyyətlərdən biridir. Aroma yüksək spirtlər, efirlər, aldehidlər, terpenlər, norisoprenoidlər, uçucu fenollar, tərkibində yağ turşuları, karbonillər, kükürd və azotlu birləşmələr olan kimyəvi strukturlardır. Şərabın keyfiyyətində və tərkibində rol oynayan ən mühüm faktorlardan biri fermentasiyada istifadə olunan mayadır. Şərab istehsalında alkoqollu fermentasiya təbii olaraq və ya ticarət maya əlavə etməklə baş verir (Şahin, 1982).

Aroma maddələri burun boşluğunun qoxu toxuması tərəfindən qəbul edilən uçucu birləşmələrdir. Aroma birləşmələri çeynədikdən sonra boğaz yolu ilə və ya burunla nəfəs aldıqda reseptorlar vasitəsilə aşkar edilir. Şərablarda 1000-dən çox aroma maddələri aşkar edilmişdir. Onların miqdarı litr başına mikroqram və milliqram arasında dəyişir. Şərabın aroma birləşmələri: çeşid aroması, fermantasiyadan əvvəlki aroma, fermentasiya aroması və yetkinlik aroması olmaqla 4 qrupa ayır edilir.

Təbii yolla baş verən fermentasiya zamanı şıra və üzümdə təbii maya florası təsirli olur. Ticarət mədəniyyətindən istifadə edərək baş verən fermentasiyada, mədəniyyət mayasından istifadə olunur və fermentasiya bu maya tərəfindən başlanır, ən sonda tamamlanır. Bu gün şərab istehsalının böyük bir hissəsi etibarlı və sürətli fermentasiyanı təmin edir və mikroblarla çirklənmə riskini minimuma endirən aktiv quru mayadan istifadə etməklə həyata keçirilir (Orlic və b., 2007).

Hal-hazırda, şərab istehsal edən bir çox müəssisələr istehsalında müxtəlifliyə və ya bölgəyə görə fərqlənir. Qırmızı şərab istehsalında da eyni istehsal prosesi tətbiq olunur. Bəzi şərablarda əhəmiyyətli keyfiyyət itkilərinə səbəb olur. Əslində dünyanın ən yaxşı şərab istehsal edən ölkələrində bölgə və çeşid fərqləri nəzərə alınaraq, istehsal prosesləri layihələndirilir və bununla bağlı daha yaxşı nəticələr almaq üçün yeni texnikalar hazırlayır. Bu işdə təbii fermentasiya və ticari şərab mayası istifadə edilmişdir.

Fermentasiya nəticəsində istehsal olunacaq şərablar 3 müxtəlif maserasiya müddətinə məruz qalır (5,10 və 15 gün). Maserasiya vaxtı və fermentasiya üsulu (təbii fermentasiya və ticarət şərab mayası əlavə olunaraq edilən fermentasyon) aroma və fenol birləşmələrin miqdarına və paylanmasına təsirləri ortaya qoyulmuşdur.

**TƏDQIQAT METODU**

Üzümlər əl ilə gövdədən çıxarılıb, kəsilir. Alınmış şirə 2 litrlik şüşə kolbalara tökülür və maserasiya və fermentasiya üçün buraxılır. Fermentasiyadan əvvəl SO2 25 mq/l səviyyəsində şərbətə əlavə edilir. Tədqiqatda kommersiya ticarət şərab mayası ilə və əlavə edilmədən iki fəqli fermentasiya həyata keçirilmişdir. Ticarət şərab mayası əlavə edilərək həyata keçirilən istehsalda şirəyə 15 g/HL səviyyəsi əlavə edilmişdir. Ticarət şərab mayası əlavə edilməklə və ticari şərab mayası əlavə edilmədən istehsal edilən şərablara üç fərqli maserasiya müddəti (5, 10 və 15 gün) tətbiq edilmişdir. Bütün üsullarda fermentasiya ərzində hər gün sıxlıq və temperatur ölçmələri aparılmışdır. Şərabların sıxlıq dəyəri 1q/sm3-dən aşağı düşdükdə köçürmə həyata keçirilir. Alkoqol fermentasiyası tamamlandıqdan sonra şərablar idarə olunan malolaktik fermentasiya üçün buraxılmış və malolaktik fermentasiyanın sonunda şərablara 45 mq/L SO2 əlavə edilmişdir.

Mədrəsə üzümündən ticarət şərab mayası əlavə olunaraq və ticari şərab mayası olmadan şərablar 5 gün, 10 gün və 15 günlük maserasiya əlavə edilərək çıxarılır və maserasiyanın sonunda və fermentasiyanın sonunda fenol maddələrin ümumi miqdarı cədvəldə göstərilmişdir.

***Cədvəl 1.*** *Şərablarda fenolların miqdarı*

| Proses | DF5 | TF5 | DF10 | TF10 | DF15 | TF15 |
|---|---|---|---|---|---|---|
| Maserasiyanın sonu | 1498.05±34.61ab | 1453.02±64.83ab | 1487.02±35.15a | 1345.05.±24.01b | 1487.02±38.80cd | 1950.02±25.23d |
| Fermentasiyanın sonu | 1430.02±29.02a | 1543.01±25.45ab | 1520.05±31.21ab | 1320.04±150.45ab | 1630.10±29.30b | 2030.12±145.6b |

Aroma birləşmələrinin analizi Shimadzu QP2010 Ultra model GC-MS cihazı ilə təbiq etdiyi metoda uyğun şəkildə həyata keçirilmişdir. 6 ml şərab və 4 qr susuz MgSO4 15 ml-lik qapaqlı sentrifüqa kolbasına tökülmüşdür. Homogen hala gələnə qədər qarışdırılır. Daha sonar ayırma metodu tətbiq olunmuşdur. Bundan sonra üstdə qalan hissə metanol ilə seyrədilmişdir.

Giusti və Wrolstad (2001) tərəfindən hazırlanmış pH-diferensial metodu ilə monomer antosiyanının tərkibinin cəmi müəyyən edilmişdir. Metoda görə 0.20 m KCL (pH 1.0) VƏ 0.3 m CH3COONa (pH 4.5) 10 dəqiqə otaq temperaturunda inkubasiyaya buraxılmış, nümunələrin spektrofotometrik adsorbisyalarını 520 və 700 nm də UV-VIS spektrofotometr istifadə edilərək ölçülmüş və udma dəyərləri düsturda yerinə qoyularaq nümunələrin monomer antosiyanının tərkibinin cəmi tapılmışdır. Giusti və Wrolstad (2001) tərəfindən hazırlanmış pH-diferensial metodu ilə monomer Mədrəsə üzümündən şərab mayası əlavə edilmədən və şərab əlavə edilməsilə 5 gün, 10 gün, 15 gün maserasiya tətbiq olunaraq maserasiyanın sonunda və fermentasiyanın sonunda monomer antosiyanların miqdarının cəmi aşağıdakı cədvəldə göstərilmişdir.

***Cədvəl 2.*** *Şərablarda monomer antosiyanların miqdarının cəmi.*

| Proses | DF5 | TF5 | DF10 | TF10 | DF15 | TF15 |
|---|---|---|---|---|---|---|
| Maserasiyanın sonu | $83.97\pm7.04^{a}$ | $69.76\pm5.06^{a}$ | $95.06\pm8.05^{b}$ | $94.85.\pm6.95^{b}$ | $85.97\pm6.25^{ab}$ | $91.25\pm2.52^{ab}$ |
| Fermentasiyanın sonu | $70.82\pm2.05^{a}$ | $69.08\pm1.155^{a}$ | $81.09\pm4.96^{c}$ | $75.62\pm4.56^{bc}$ | $70.52\pm5.63^{bc}$ | $76.85\pm3.08^{b}$ |

**NƏTICƏ**

Maserasiyadan sonra DF5, DF10 və DF15 şərablarının ümumi fenol maddələrinin miqdarı nümunələr müvafiq olaraq 1498.05 mq GAE/L, 1487.02 mq GAE/L və 1487.02olmuşdur. TF5, TF10

və TF15 son maserasiya nümunələrində müvafiq olaraq 1453.02mq. GAE /L 1345.05 mq GAE /L və 1950.02mq GAE /L olaraq təyin edildi. Şərablardan fenol maddələrin ümumi miqdarı; DF5, DF10 və DF15 şərablarında müvafiq olaraq 1430.02 mqGAE /L, 1520.05 mq GAE /L və 1630.10 mq GAE /L olaraq təyin edildi, TF5, TF10 və TF15 şərabları müvafiq olaraq 1543.01 mq GAE /L, 1320.04 mq GAE /L və 2030.12 olmuşdur mg GAE / L olaraq təyin edildi. Maserasiya müddətindən asılı olaraq ən yüksək ümumi fenol tərkii maddənin miqdarı maserasiyadan sonra 15 gün ərzində əldə edilmişdir. TF15 maserasiyanın sonu nümunədə fenol maddələrin ümumi miqdarının ən yüksək səviyyədə olduğu müəyyən edilmişdir. TF15 şərabın ümumi fenol maddəsinin və digər şərabların ümumi fenol maddəsinin tərkibi arasındakı fərqlərin statistik cəhətdən əhəmiyyətli olduğu aşkar edilmişdir.

Şərabların monomer antosiyaninin miqdarının cəmi maserasiyanın sonunda alınan nəticənin fermentasiyanın sonunda alınan nəticədən yüksək olduğu göstərilmişdir. Şərab nümunələrində ən yüksək monomer antosiyan miqdarının cəmləri içərisində DF10 və TF10 da olduğu göstərilmişdir. DF5 və TF5; DF10 və TF10; DF15 və TF15 şərablarının monomer antosiyanların miqdarları arasındakı fərq öz aralarında statistik olaraq vacib deyildir. Müxtəlif maserasiya vaxtları istifadə edilərək istehsal olunan şərabların monomer antosiyanların miqdarlarının arasındakı fərq isə statistik olaraq vacibdir. Maserasiya vaxtının 5 gündən 10 günə çıxması həm DF həm də TF şərablarında antosiyanların miqdarlarının cəminin artmasına, ancaq maserasiya vaxtının 15 günə çıxması antosiyanların miqdarlarının cəminin azalmasına səbəb olur. Müxtəlif maserasiya vaxtının qırmızı şərabların monomerik antosiyanın, fenol birləşmə miqdarının cəminə təsir etdiyi, lakin fermentasiya şərtlərinin monomerik antosiyanın cəminin, fenol birləşmələrinin miqdarının cəminə təsir etmədiyi aşkar olunmuşdur.

**ƏDƏBIYYAT SIYAHISI**

1. Ribéreau-Gayon, P. & Glories, Y. (1986). Phenolics in grapes and wine. Proceeding of the Sixth Australian Wine Industry Technical Conference. Terry Lee. Adelaide. South Australia, 252 p.

2. Dugelay, I., Günata, Y.Z., Sapis, S.C., Baumes, R. & Bayonove, C. (1993). Role of cinnamoly esterase activities from enzyme preparations on formation of volatile phenols during winemaking. Journal of Agricultural and Food Chemistry, 2093 p.

3. Romero-Cascales, I., Fernandez-Fernandez, J.I., & Lopez-Roca, J.M. (2005). The maceration process during winemaking extraction of anthocyanins from grape skins into wine. European Food Research and Technology, 165 p.

4. Orlic, S., Redzepovic S., Jeromel A., Herjavec, S. & Iacumin, L. (2007). Influence of indigenous Saccharomyces paradoxus strains on Chardonnay wine fermentation aroma. International Journal of Food Science and Technology, 94 p.

5. Şahin İ. (1982). Mayaların sarap bileşim ve kaliteleri üzerine etkileri üzerinde araştırmalar. Ankara, Ankara Üniversitesi Ziraat Fakültesi Yayınları, 53 s.

# ABŞERONDA BECƏRİLƏN QİYMƏTLİ ZƏFƏRAN (CROCUS SATİVUS L.) BİTKİSİ

**XƏYALƏ ƏLİBƏYLİ**
AR Elm və Təhsil Nazirliyi Dendrologiya İnstitutu
xeyaleelibeyli@g mail.com
BAKI, AZƏRBAYCAN

**TOFİQ SADİQOV**
AR Elm və Təhsil Nazirliyi Dendrologiya İnstitutu
sadigov@mail.ru
BAKI, AZƏRBAYCAN

**ELMİN ƏLİBƏYLİ**
AR Elm və Təhsil Nazirliyi Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
elminalibayli@gmail.com
BAKI, AZƏRBAYCAN

**XÜLASƏ**

Təqdim olunan məqalədə Azərbaycanda Abşeron yarmadasında becərilən adi zəfəran (Crocus sativus L.) növünün tarixi, botaniki təsviri, təsərrüfat əhəmiyyəti haqqda ətraflı məlumat verilir. Zəfəran bitkisi qədimdən bəri yetişdirilən qiymətli dərman, ədviyyat və boya bitkisidir. Dünyanın müxtəlif sənaye sahələrində istifadə olunan ən bahalı ədviyyatdır. Zəfəranın xüsusilə dərman və qida sənayesində daha çox istifadə olunur. Azərbaycan mətbəxində zəfərandan yeməklərə gözəl ətir və rəng qatmaq üçün geniş istifadə olunur. Zəfəran telləri uzun müddət saxlandıqdan sonra belə öz təravəti və ətrini itirmir. Zəfəran dəmi adətən plovlarda, bəzi ət xörəklərində, şorbalar və şirniyyatlarda istifadə olunur [3]. Azərbaycanda zəfəranın 5 növünə təsadüf olunur. Ancaq bir növü becərilən adi zəfəran (Crocus sativus) Abşeronda geniş becərilir və təbabətdə də ancaq bu növdən istifadə olunur [4]. Zəfəran məişətdə, kulinariyada olduğu kimi, həmçinin kosmetik vasitələrdə də geniş istifadəsi məqsədəuyğundur.

**Açar sözlər:** Abşeron, zəfəran, sənaye
**Key words:** Absheron, saffron, industry

## GIRIŞ

Zəfəran bitkisi hələ çox qədim zamanlardan insanlar tərəfindən tanınan qiymətli bitkidir. Zəfəran ətrinə və gözəl rənginə görə Azərbaycan mətbəxində geniş istifadə olunur. Bununla bərabər ondan xalq təbabətində dərman bitkisi kimi də istifadə edilir. Zəfəran bitkisi 4000 ilbundan əvvəl yaşayan xalqlarada məlum idi. Kiçik Asiyanın, İranın və Əfqanıstanın qədim xalqlarınınəd əbiyyatındada zəfəran bitkisinin adına təsadüf edilir. Zəfəran bitkisinin vətəni məlum deyil. Ehtimal edirlər ki, onun vətəni Kiçik Asiya, Orta Asiya və İrandır, çünki ən qədim zəfəran bitkisi oralarda tapılmışdır. Zəfəranın Abşerona İrandan gətirildiyi güman edilir və təxminən VII əsrin əvvəllərindən burada əkilib becərilməyə başlanmışdır [1,3]. Abşeronun quru subtropik iqlimi zəfəran bitkisinin becərilməsin üçün əlverişlidir. Qiyməti qızıla bərabər olan zəfəran uzunömürlü bitkidir. Zəfəran bitkisinin adı dünyanın ən bahalı qidaların siyahısına salınmışdır. Zəfərandan kulinariyada, kosmetalogiyada geniş istifadə edilir.

Zəfəran (Crocus sativus L.) zanbaqçiçəklilər (Jridaceae) fəsiləsindən olub, Krokus (Crocus) cinsinə mənsubdur. Yer kürəsində zəfəran bitkisinin müxtəlif növləri yayılmışdır. Lakin bu növlərin hamısı yabanı halda bitir. Bunlardan yalnız bir növ (Crocus sativus L.) mədəni halda becərilərək zəfəran məhsulu verir. Lakin ondan indiyə qədər toxum almaq mümkün olmamışdır, ancaq soğanaqları ilə çoxalır. Zəfəranın yerüstü hissəsini soğanaqlardan çıxan oxşəkilli yarpaqlar təşkil edir . Zəfəranın yerüstü hissəsini soğanaqlardan çıxan oxşəkilli yarpaqlar təşkil edir. Zəfəranın gövdəsi çox da iri deyildir. Gövdəni soğanaqlardan çıxan ilk yarpaqları özündə saxlayan nazik pərdə əvəz edir. Bu pərdənin daxilindəki yarpaqlar torpaqdan çıxaraq 10-12 sm-ə qədər boy atır. Sonra isə yarpaqlar açılır

və zəfəranın zanbaqvari çiçəyi oradan çıxır. Yarpaqlar əvvəlcə topa şəklində olur, sonradan isə şaxələnib ayrılırlar. Soğanaqları bütün sakitlik dövrü ərzində əkmək olar [2,3].

Zəfəranın torpağın altında qalan soğanları üç il tumurcuqlayır. Yəni bitki gələn ilin soğanını verdikdən sonra bitkinin torpaq üstündəki qalan hissəsi quruyur. Soğan hissə üstdən və altdan basıq kürə şəklində və 2-4 sm böyüklükdə olur. Bitkinin soğan hissəsi qəhvəyi rəngli qabıqlarla örtülüdür.Bitkinin torpaq üstündə olan hissəsində isə iynə formasında olan incə və uzun yarpaqlar vardır. Zəfəranın soğanı avqust və ya sentyabr aylarında əkilir və oktyabr ayında çiçəklənir. Çiçəklənmə oktyabr ayının ortasında başlayır və noyabr ayının ortasına qədər davam edir. Hündürlüyü 20-25 sm-ə çatan zəfəran bitkisindən 7-8 ədəd çiçək alınır.

Zəfəran bitkisi vegetativ yolla çoxalır. Çoxalma zəfəran bitkisi çiçəklədikdən sonra baş verir. Zəfəran bitkisi toxum vermir və buna görə də onun çoxalması soğanaq yumruları ilə baş verir. Zəfəran əkilən plantasiyalardan soğanaqlar 3-4 ildən bir çıxarılır və yeni sahələrə köçürülür. Soğanaqların çıxarılması iyunun əvvəlində, vegetasiyanın dayanması və yarpaqların quruması zamanı başlayır. Abşeronun quru subtropik iqlimi zəfəran becərilməsi üçün çox əlverişlidir. Zəfəran rütubətə tələbkar bitki deyil. Zəfəranın cücərtilərinin çıxması üçün payız fəslinin əvvəlində az miqdarda yağış yağması kifayət edir. Abşeron şəraitində zəfəran bitkisi suvarma olmadan becərilir. Zəfəranın yetişdirilməsində becərmənin təkmilləşdirilmiş üsulları tətbiq edilmədikdə məhsul demək olar ki, iki dəfə azalır [2].

Zəfəran çox qiymətli təsərrüfat bitkisidir. Azərbaycanda 5 növünə təsadüf olunur. Keçmiş SSRİ məkanında mədəni zəfəran yalnız Azərbaycanda – Abşeron yarımadasının Bilgəh qəsəbəsi ərazisində yerləşən Zəfəran Sovxozunda becərilirdi. Bu bölgənin təbii iqlim və torpaq şəraiti zəfəranın becərilməsi üçün olduqca əlverişlidir. Azərbaycan zəfəranı öz keyfiyyətinə görə nəinki postsovet məkanında, hətta bir sıra xarici ölkələrdə də şöhrət qazanmışdı. Lakin Sovet İttifaqının dağılması digər sahələrdə olduğu kimi, zəfəran istehsalına da öz mənfi təsirini göstərdi. Zəfəran sovxozu ləğv olundu, əkin sahələri soğanaqlarla (əsas əkin materialı) birlikdə ayrı-ayrı fərdi təsərrüfatlara verildi. Nəticədə zəfəran istehsalı kəskin azaldı. Dərman məqsədilə zəfəranın dişiciyindən istifadə edilir. Zəfəranın əsas təsiredici maddəsi efir yağı vəboya maddəsidir. Zəfəranın dişiciklərində boyaq maddələri (pikrokrosin, krosin və s.) karotinoidlər (likopin, karotin vəzeaksantin), 0,34% efir yağı müəyyən edilmişdir. Efir yağının tərkibində pinen və sineol kimi terpenoidlər müəyyən edilmişdir. Xammalın tərkibində 6,8% -ə qədər piyli yağ, vitaminlər (tiamin və riboflavin), flavonoidlər (izoramnetin və kempferol) da tapılmışdır [5]. Ümumiyyətlə zəfəranın efir yağının miqdarı 0,3 %- dən 1,4%- ə qədər təşkil edir.



**Şəkil 1.** Adi zəfəran (Crocus sativus L.)

**TƏDQIQAT METODU**

Tədqiqat obyekti olaraq Abşeronda mədəni halda becərilən adi zəfəran (Crocus sativus L.) növü götürülmüşdür. Tədqiqat işinin yerinə yetirilməsi üçün Abşeronda Crocus sativus L. növü üzərində fenoloji müşahidələr aparılmışdır. Tədqiq olunan növ üzərində fenoloji müşahidələr Botanika bağlarında istifadə olunan standart metodlara istinad edilməklə öyrənilmişdir. Zəfəranın soğanaq yumruları may ayından sentyabr ayına qədər dinclik vəziyyətində olur. Bitkinin vegetasiya və dinclik dövründə fenoloji müşahidələr aparılmışdır. Azərbaycanda becərilən zəfəranın çiçəklənmə dövrü oktyabr-noyabr aylarına təsadüf edir.



**Şəkil 1.** Adi zəfəran (Crocus sativus L.) bitkisinin çiçəkləri

Azərbaycanda mütəxəssislər tərəfindən zəfəran tellərinin və zəfəran çiçəyinin başqa hissələrinin kimyəvi tərkibi öyrənilmişdir. Zəfəran çiçəyinin ayrı-ayrı hissələrindəki karotinoidlərin tərkibini və faizlə miqdarını spektrofotometriya üsulu ilə öyrənilmişdir. Müəyyən olunmuşdur ki, zəfəranın əsas məhsulu olan dişicik ağızcıqlarında boya maddələrindən α-karotin, β-karotin, γ-karotin, krosetin, likopin, zeaksantin vardır. Ümumi boya maddələrinin miqdarı 1,5%-dir. Boya maddələrinin ümumi miqdarı bütöv çiçəkdə 1,13%, ləçəklərdə 0,88%, erkəkciklərdə isə 4,67%-dir. Erkəkciklərdə karotinoidlərin çoxolması, əsasənα-karotin, β-karotin, γ-karotinin hesabına olmuşdur [3].

Zəfəranın ədviyyatlıq xüsusiyyətindən əlavə, həm də güclü konservləşdiricilik qabiliyyətinə malik olması alimlər tərəfindən aşkar olunmuşdur. Zəfəranın tərkibində olan efir yağları və rəngləyici maddələr konservant rolunu oynadığı güman edilir. Zəfəran elmi təbabətdə iştahı gücləndirən ədviyyat kimi, sinir sistemini tonuslandıran vasitə kimi istifadə olunur, dişciklərinin sulu və spirtli dəmləməsindən bir çox qan xəstəliklərinin müalicəsində istifadə olunur.

**NƏTICƏ**

Aparılan elmi-tədqiqat işləri nəticəsində Crocus sativus L. növünə Abşeron şəraitində müəyyən aqrotexniki qulluq göstərildiyi zaman inkişafını normal keçirdiyi və becərilməsində xüsusi bir qayğıya ehtiyac olmadığı müəyyən edilmişdir. Zəfəran qiyməti qızılla müqayisə edilən yeganə qida məhsuludur. Araşdırmalar göstərir ki, Abşeron zəfəranı öz keyfiyətinə görə dünyanın bir çox ölkələrində becərilən zəfəranlardan seçilir. Zəfəran qoxusu baş ağrısını aparır və yüksək əhval yaradır. Çox qiymətli bitki olan zəfəran kulinariyada, kosmetalogiyada geniş istifadə edilir. Zəfəran qədimdən bəri fərqli sahələrdə müxtəlif məqsədlər üçün istifadə olunmuşdur, həmçinin ipək və yun parçaları və xalçaları boyamaq üçün istifadə edilə biən bir vasitədir.

Çoxsahəli əhəmiyyətə malik olan zəfəran bitkisi qida, boya, tibb, kosmetika sənayrsində geniş istifadə olunması məqsədəuyğundur.

**ƏDƏBIYYAT SIYAHISI**

Elman Rzayev. Bəzi xəstəliklərin müalicəsində bitkilərin şəfaverici rolu. Bakı - 2013, 120-122

Əhmədov Ə.İ. Ədviyyələr və tamlı qatmalar. Monoqrafiya. Bakı:Azərnəşr, 2019, 69-147

Əhməd-Cabir İ. Əhmədov (Əməkdar müəllim) i.e.n. Mikayıl R. Hüseynov. Zəfəran təbiətin möcüzəsi - min bir dərdin dərmanı Bakı – “Elm” – 2020

Elşad Qurbanov. Ali bitkilərin sistematikası. Bakı: 2009, 53-55

İ.A.Dəmirov, N.A.İslamova, Y.B.Kərimov, R.M.Mahmudov. Azərbaycanın müalicə əhəmiyyətli bitkiləri Bakı - 1988, 6-7

# ESSENTİAL OİLS USED İN AROMATHERAPY

**Nilufar Bayramli**
Baku Engineering University
Pedagogy faculty/ Biology teaching
nbayramli2@std.beu.edu.az
BAKU, AZERBAIJAN

**Abstract**

The use of essential oils in aromatherapy, a subset of phytotherapy, to maintain health has gained popularity in recent years. The three basic methods of using essential oils are ingestion (via the digestive system), topical absorption (through the skin), and inhaling (via the respiratory system or olfactory nerves). The biological activity and aroma of essential oils are determined by their chemical makeup, which is a blend of many organic components. They may be divided into a number of categories based on their scent, including citrus, herbaceous, camphorous, flowery, woody, earthy, minty, and spicy. This essay reviews the literature on the application of essential oils to aromatherapy by inhalation. While serious illnesses cannot be cured with this sort of aromatherapy, it may be used effectively to improve mood, balance and overall well-being, relieve minor discomforts, reduce stress, and strengthen the immunological, respiratory, and circulatory systems.

**Key words:** Aromatherapy, essential oils, inhalation, complementary therapy, fragrance

**INSTRUCTION:**

The words aroma, which means fragrance or smell, and therapy, which means treatment, are the roots of the phrase aromatherapy. A person can naturally heal their mind, body, and spirit with this therapy. This has been utilised as a common supplementary and alternative therapy for at least 6,000 years by numerous ancient civilizations, including Egypt, China, and India Aromatherapy has proven to be effective in treating a wide range of issues and ailments. A review of the literature indicates that this therapy became well-known in the late 20th and early 21st centuries, and because of its significance, appeal, and broad use, aroma science therapy is now officially recognised . The importance of essential oils has grown due to their use in medicine, cosmetics, aromatherapy, and spirituality. Essential oils, which are claimed to be extremely concentrated compounds derived from flowers, leaves, stalks, fruits, and roots as well as distilled from resins, are the primary therapeutic agents used in aromatherapy. Saturated and unsaturated hydrocarbons, alcohol, aldehydes, esters, ethers, ketones, oxides, phenols, and terpenes are all combined to form essential oils, which can give them their distinct smells . These are high refractive index, colourless, and aromatic liquids.[1]

Numerous cultures have employed essential oils for a variety of purposes. The Egyptians made fragrances, cosmetics, and ointments with aniseed, cedar, and myrrh. More than 700 plants, including cinnamon, ginger, myrrh, and sandal wood, were used medicinally in China and India; in ancient Greece, thyme, saffron, marjoram, caraway, and peppermint were utilised. Aromatherapy has proven to be effective in treating a wide range of illnesses. The relevance of essential oils has grown over the ages for its usage in aromatherapy, cosmetics, and medicine.[2] Conversely, aromatherapy is a subset of phytotherapy that makes use of essential oils, which are secondary metabolites that plants create to protect themselves from environmental stressors like insects, herbivores, and diseases, as well as extreme heat and dryness. However, because of their advantageous biological qualities, humans employ them for a variety of applications related to health maintenance, including as the food and beverage industry, cosmetics, and medicine. Essential oils are mostly utilised in aromatherapy to change one's thinking, emotions, cognitive performance, or general wellness [3].

**HOW AROMATHERAPY WORKS?**

Essential oils have long been recognised for their therapeutic use as a scent that can benefit the body, mind, and soul. These scent molecules are extremely strong organic plant compounds that eliminate bacteria, viruses, fungi, and diseases from the surrounding area. Numerous scientists have extensively documented their adaptable properties, which include antibacterial, antiviral, and anti-inflammatory properties, as well as immune boosting properties with hormonal, glandular, emotional,

circulatory, relaxing impact, memory, and alertness enhancement properties . In an effort to understand human nature and its involvement in sickness and disorder, numerous pilot projects and research have been carried out on humans . These oils are renowned for having an energy-specific quality because they retain their potency throughout time [4].

## CHEMICAL COMPOSITION OF ESSENTIAL OILS

Essential oils are intricate natural blends that can have anywhere from 20 to 60 components in a wide range of intensities. In contrast to other components that are present in trace amounts, they are characterised by two or three primary components at relatively high concentrations (20–70%). For instance, the main ingredients in the essential oils of Origanum compactum (30%) and Thymol (27%), Coriandrum sativum (68%) and α- and β-thuyone (57%). [5]

## MEDICINAL AND FUTURE MEDICAL APPLICATIONS OF ESSENTIAL OILS

Since essential oils have a prooxidant activity that gives them cytotoxic properties, these properties can be used as effective antiseptics and antimicrobials for personal hygiene, air purification, internal use through oral ingestion, and insecticidal purposes such as crop or food stock preservation. Essential oils often have no long-term genotoxic hazards, which is a huge benefit. [5]

## ESSENTIAL OILS USED IN INHALATION AROMATHERAPY

Essential oils can also be classified based on aroma into seven groups: 1) citrus, 2) herbaceous, 3) camphorous, 4) floral, 5) woody, 6) earthy, 7) minty and spicy . The most recent used essential oils in inhalation aromatherapy are shown in Table 1, together with aromas and indications for applications.

## PLANTS USED IN AROMATHERAPY

**Table 1. [6]**

| LATIN NAME | COMMON NAME | ODOR AND FLAVOR | AROMATHERAPHY |
|---|---|---|---|
| *Anthemis nobilis* | ROMAN CHAMOMILE | Sweet herbal green cognac spicy woody | Anxiolytic Analgetic (treating earache, menstrual pains) Against depression |
| *Citrus aurantium* var. *amara* | BITTER ORANGE FLOWER (NEROLI) | Sweet, fresh and floral odor | Sedative, soothing, calming, and motor relaxant Anxiolytic and antidepressant Promotes a positive mood |
| *Citrus bergamia* | BERGAMOT | Fresh, with hints of citrus and spice | Positive feelings Against psychological stress and anxiety Against migraine To treat anxiety and depression |
| *Citrus limon* | LEMON | Distinctive lemony aroma | Anxiolytic Antidepressant |
| *Citrus sinensis* | ORANGE | Sweet citrus fragrance | Anxiolytic Against migraing Decreases pain intensity during labor |
| *Lavandula angustifolia* | LAVENDER | Characteristic odor and sweet floral aroma | Attenuates behavioural and psychological symptoms of dementia in patients with Alzheimer's disease Post-operative pain relives Reduces procedural stress Against migraine Decrease stress and anxiety Decreases pain intensity during labor |
| *Hyssopus officinalis* | HYSSOP | Warm aromatic sharp camphoraceous scent | Against allergy, Sedative |
| *Jasminum officinale* | JASMINE | Sweet, exotic and richly floral scent | **Relaxation Decreases pain intensity during labor** |

| | | | |
|---|---|---|---|
| *Lavandula lotifolia* | SPIKE LAVENDER | Strong camphoraceus odor | Pain reliever (headache) Relaxation and stress relief Nose and throat infections |
| *Matricaria recutita* | GERMAN CHAMOMILE | Sweet herbaceous odour and bitter aromatic flavor | Decreases stress and anxiety, Decreases pain intensity during labor Busts the immune system |
| *Melissa officinalis* | LEMON BALM | Fresh, herbaceous odour with a typical lemon-citronella note | Attenuates behavioural and psychological symptoms of dementia in patients with Alzheimer's disease , Treatment for the management of agitation in severe dementia |
| *Mentha piperita* | PEPERMINT | Mainly type odor that's cool and refreshing | Cold and flu symptoms Against migraine Decreases pain intensity during labor Treat exhaustion Against nausea |
| ***Ocimum basilicum*** | BASIL | Warm, spicy-sweet aroma | Against migraine To treat anxiety and depression |
| *Rosa damascena* | ROSE | Typical rose odour | Anxiolytic Decreases pain intensity during labor Tachycardia Anti-depressant |

**Table 2. [7]**

| Essential Oils | Parts of plants |
|---|---|
| **Bergamot, lemon, lime, sweet orange, tangerine, mandarin** | Fruit peel |
| **Cinnamon** | Bark |
| **Citronella, lemongrass, petitgrain, palmarosa, patchouli** | Leaves |
| **Geranium, lavender, rosemary, spike lavender** | Entire plant |
| **Jasmine, neroli (orange blossom), rose, ylang ylang** | Flowers |
| **Ginger, vetiver** | Roots |

**RESULTS:**

1. Aromatherapy is natural and noninvasive gift of nature for humans.
2. Aromatherapy regulates the physiological, spiritual and psychological upliftment for the new phase of life.
3. Essential oils can be a useful non-medicinal option or can also be combined with conventional care for some health conditions, provided safety and quality issues are considered.
4. Aromatherapy (inhaling petitgrain essential oil) can improve performance in the workplace. These results could be explained by an autonomic balance on the sympathetic/parasympathetic system through a combined action of the petitgrain main components (linalyl acetate, linalool, and myrcene).
5. Aromatherapy also can make side effects. The most common side effects are allergic reactions and skin irritations due to hypersensitivity or allergy to oil ingredients.
6. The final result could be an improvement of the mental and emotional condition by a combination of reducing the stress level and increasing the arousal level of the participants in terms of attentiveness and alertness.

**REFERENCE**

1. Aromatherapy for the healthy child: more than 300 natural, non-toxic, and fragrant essential oil blends (W.A. Wood)

Aromatherapy-an alternative health care through essential oils (A.Krishna, R.Twari, S. Kumar).

Biological activities of essential oils from selected aromatic plants (K.P. Svoboda, S.G. Deans)

500 formulas for aromatherapy: mixing essential oils for every use (C. Schiller, D. Schiller)

2. Ali B., Al-Wabel N.A., Shams S., Ahamad A., Khan S.A., Anwar F. Essential oils used inaromatherapy: A systemic review. Asian Pac J Trop Biomed, 2015; 5(8): 589-598.

Biological Effects of Some Mediterranean Essential Oils on Human Health. Biomed Res Int, 2017

Romer M. Aromaterapia. Wrocław; Wyd. MedPharm: 2009.

3. Betts T., Fox C., Rooth K. and MacCallum R. (1995). An olfactory countermeasure treatment for Epileptic seizures using a conditioned arousal response to specific aromatherapy oils. *Epilepsia*;

Buchbauer G., Jirovetz L. and Jager W. (1992). Passiflora and Limeblossom: Motility effects after inhalation of the essential oils and of some of the main constituents in animal experiments. *Arch Pharm* (Weinheim);

Buchbauer G., Jirovetz L., Jager W., Dietrich H., Plak C. and Karamat E. (1991). Aromatherapy: Evidence for sedative effects of the essential oils of lavender after inhalation. *Z Naturforsch;*

4. PytkowskaK.,ArctJ.Advancesofsensoryanalysis. Wiadomości PTK, 2006

Williams AC, Barry BW. Penetration enhancers. Adv Drug Deliv Rev, 2004;

5. Setzer W.N. Essential Oils and Anxiolytic Aromatherapy. Nat Prod Commun, 2009

6. Journal of Agronomy, Technology and Engineering Management, Department of Vegetable and Alternative Crops, Institute of Field and Vegetable Crops Novi Sad, Maksima Gorkog 30, 21000 Novi Sad, Serbia

**7.** Biological effects of essential oils – A review (F. Bakkali , S. Averbeck , D. Averbeck , M. Idaomar

# KSİLOTROF MAKROMİSETLƏR BİOLOJİ AKTİV MADDƏLƏRİN PRODUSENTİ KİMİ

**VƏFA HƏSƏNOVA**
AR ETN Mikrobiologiya İnstitutu
*hasanova.vafa@mail.ru*
BAKI, AZƏRBAYCAN

**SUMMARY**

The presented work is devoted to the study of the use of xylotrophic macromycetes as producers of biologically active substances registered in natural and artificial forests of the Greater Caucasus in Azerbaijan. As a result of the research, 43 strains were obtained, belonging to 8 species included in 6 genera. It has been established that the registered fungi mainly belong to the genera *Trametes, Fomitopsis, Ganoderma, Inonotus, Laetiporus, Pleurotus*, belonging to the class *Agaricomycetes* of the *Basidiomycota* department. It has also been established that all registered fungi are eurytrophic, and most of them are polytrophic and cause white rot. It was also known that the xylotrophic macromycetes obtained as a result of the research did not have any toxic effects. At the same time, Trametes pubescens was selected as a producer of bioactive substances due to its higher biological activity.

**KEY WORDS:** xylotrophic macromycetes, biologically active substances, Trametes pubescens, biomass, culture liquid

**XÜLASƏ**

Təqdim olunan iş Böyük Qafqazın Azərbaycana aid olan hissəsindəki təbii və süni meşəliklərində qeydə alınan ksilotrof makromisetlərin bioloji aktiv maddələrin produsenti kimi istifadəsinin öyrənilməsinə həsr olunmuşdur. Tədqiqat nəticəsində 6 cinsə daxil olan 8 növə aid 43 ştamm əldə edilmişdir. Məlum olmuşdur ki, qeydə alınan göbələklər əsasən *Basidiomycota* şöbəsinin *Agaricomycetes* sinfinə aid olan *Trametes, Fomitopsis, Ganoderma, İnonotus, Laetiporus, Pleurotus* cinslərinə daxildir. Qeydə alınan göbələklərin hamısının evritrof, əksəriyyətinin isə politrof və ağ rəngli çürümə törədicisi olması da müəyyənləşdirilmişdir. Həmçinin tədqiqat nəticəsində əldə edilən ksilotrof makromisetlərin heçbir toksiki təsirə malik olmamamları da məlum olmuşdur. Eyni zamanda bu göbələklərdən *Trametes pubescens* daha yüksək bioloji aktivlik göstərdiyindən bioloji aktiv maddələrin produsenti kimi seçilmişdir.

**AÇAR SÖZLƏR:** ksilotrof makromisetlər, bioloji aktiv maddələr, Trametes pubescens, kultural məhlul, biokütlə

**GIRIŞ**

Təbiətdə radioaktiv çirklənmə ilə yanaşı tərkibində kifayət qədər ağır metallar, ksenobiotiklər, nitratlar, pestisidlər və s. kimi zərərli maddələr olan qida məhsulları ilə kənd təsərrüfatı heyvanlarının, o cümlədən insanların balanslaşdırılmamış qidalanması əhalinin sağlamlığına kifayət qədər mənfi təsir göstərir və bu da onlarda xərçəng, allergik və bir sıra başqa xəstəliklərin yaranmasına gətirib çıxardır. Məhz ətraf mühitin əlverişsiz təsirini bu zərərli maddələrin insan orqanizminə daxil olmasını məhdudlaşdırmaq, immun sistemini gücləndirmək, o cümlədən, bərpa proseslərinin gücləndirilməsi yolu ilə azaltmaq olar. Ona görə də son onillikdə tədqiqatçıların diqqətini daha çox tərkibində immunostimulyator, immunomodulyator, antioksidant və s. kimi təsir xüsusiyyətlərinə malik bioloji aktiv maddələr olan dərman əhəmiyyətli göbələklər cəlb etmişdir. Bu səbəbdən də müasir mikologiya və biotexnologiyanın inkişafının əsasını prioritet sahələrdən biri olan ksilotrof makromisetlərdən istifadə etməklə bioloji aktiv maddələrin alınması üçün yeni texnologiyaların işlənib hazırlanması təşkil etmişdir (Kalač, 2012; Baxi et al, 2016; Hyde et al, 2019).

Aparılan çoxsaylı tədqiqatlar nəticəsində məlum olmuşdur ki, ksilotrof makromisetlər alkaloid, polisaxarid, terpenoid, ferment, vitamin, fenol, poliketid və s. kimi bir sıra bioloji aktiv maddələrin istehsalçılarıdırlar. Bu maddələr kimyəvi yolla sintez olunan maddələrlə müqayisədə daha az toksiki təsirə malik olmaqla yanaşı, həmçinin, güclü farmokoloji aktivlik göstərdiklərinə görə onlardan tibbi praktikada geniş şəkildə tətbiq olunur. Ksilotrof makromisetlərdən bioloji aktiv maddələrin alınması ilə əlaqədar aparılan işlərin əksəriyyəti bu göbələklərin meyvə cisimlərindən istifadəsinə əsaslanmışdır. Lakin məlum olmuşdur ki, ksilotrof makromisetlərin bioloji aktiv maddələri təkcə meyvə cisimlərində deyil, həmçinin bu göbələklərin həm duru, həm də bərk fazalı kulturasiya yolu ilə alınan vegetativ mitselilərində də mövcuddur. Bu səbəbdən də təqdim olunan iş ksilotrof makromisetlərin bioloji aktiv maddələrin produsenti kimi istifadəsinin öyrənilməsinə həsr olunmuşdur (Akhundova et al, 2019; Elkhateeb et al, 2019; Osinska-Jaroszuk et al, 2015).

**TƏDQIQAT METODU**

Tədqiqat ərazisi olaraq Böyük Qafqazın Azərbaycana aid olan hissəsində yerləşən təbii və süni meşəliklər götürülmüşdür. Tədqiqat obyekti olaraq isə ksilotrof makromisetlər götürülmüşdür. Göbələklərin meyvə cisimləri marşrut metodu ilə toplanılmış və laborator analizlər üçün hazırlanmışıdr. 96-a yaxın əldə edilmiş meyvə cisimləri göbələklərin məlum təyinedicilərindən istifadə edilməklə kultural-morfoloji və fizioloji əlamətlərinə görə identifikasiya edilmişdir. Əldə edilmiş meyvə cisimlərindən laborator şəraitdə təmiz kultura almaq üçün bərk qidalı mühit olan 2-3 $^0$ B qatılığında aqarlaşdırılmış səməni şirəsindən istifadə edilmişdir. Tədqiqatın sonrakı gedişatında ksilotrof makromisetlərdən biokütlə əldə etmək üçün duru qidalı mühit kimi qlükozalı-peptonlu mühitdən istifadə edilmişdir. Alınan biokütlələr bioloji aktiv maddələrin mənbəyi kimi istifadə edilmişdir (Билай, 1982; Бондарцева, 1998).

Tədqiqat zamanı bütün təcrübələr 4 təkrarda qoyulmuş və alınan nəticələr statistik işlənmişdir.

**NƏTICƏ**

Azərbaycanın şimal və şimal-şərq hissələrini əhatə edən Böyük Qafqazın təbii və süni meşəliklərində aparılan tədqiqatlar zamanı ilkin olaraq əldə edilən ksilotrof makromisetlərin növ tərkibi müəyyənləşdirilmişdir. Tədqiqat zamanı 6 cinsə daxil olan 8 növə aid 43 ştamm əldə

edilmişdir. Tədqiqat zamanı *Trametes pubescens, Trametes zonatus, Trametes ochraceus, Fomitopsis pinicola, Ganoderma applanatum, İnonotus hispidus, Laetiporus sulphureus, Pleurotus ostreatus* göbələk növləri əldə edilmişdir. Məlum olmuşdur ki, əldə edilən ksilotrof makromisetlər əsasən *Basidiomycota* şöbəsinin *Agaricomycetes* sinfinə aid olan *Trametes, Fomitopsis, Ganoderma, İnonotus, Laetiporus, Pleurotus* cinslərinə daxildir. O da aydın olmuşdur ki, əldə olunan göbələklkərin əksəriyyəti təbii şəraitdə ağ rəngli çürümə törədirlər. Eyni zamanda bu göbələklərin substrata olan münasibətinə görə evritrof və əksəriyyətinin isə ekolo-trofiki əlaqələrinə görə politrof olmaları da tərəfimizdən müəyyənləşdirilmişdir. Belə ki, qeydə alınan göbələklərin 75%-ə qədəri politrofların, 62,5%-ə qədəri isə təbii şəraitdə ağ rəngli çürümə törədənlərin payına düşür.

Tədqiqatın növbəti mərhələsində isə qeyd alınan göbələklər bioloji aktivliyinə görə müqayisə edilmişdir. Bunun üçün hər bir göbələyin duru qlükozalı-peptonlu qidalı mühitdə inkişafının beçinci günündə əmələ gətirdiyi biokütlələrin quru çəkiləri müqayisə edilmişdir. Məlum olmuşdur ki, əldə edilən hər bir göbələk bu duru qidalı mühitdə inkişaf etmək qabiliyyətinə malikdir. Sadəcə əmələ gətirdikləri biokütlə miqdarına görə bir-birlərindən fərqlənirlər. Sonda məlum oldu ki, qeydə alınan ksilotrof makromisetlərdən *Trametes pubescens* daha çox biokütlə əmələ gətirmişdir. Bu da onun daha yüksək metabolitik aktivliyə malik olmasını göstərir.

Tədqiqatın sonrakı mərhələsində daha çox bioloji aktivlik göstərən *Trametes pubescens* göbələyinin buğda toxumlarının cücərməsinə təsir xüsusiyyəti öyrənilmişdir. Bunun üşün buğda toxumları kontrol olaraq həm duru qlükozalı-peptonlu mühitdə, həm göbələyin kultural məhlulunda, həm də vegetativ mitseli məhlulunda islağa qoyulmuşdur. Nəitcədə göbələyin kultural məhlulunda islağa qoyulan toxumların digər məhlullarda islağa qoyulan toxumlarla müqayisədə daha çox, yəni 200 ədəd buğdadan 189-nun cücərməsi müəyyənləşdirilmişdir. Bununla da məhz bu göbələyin toxumların inkişafına stimullaşdırıcı təsir göstərməsi aydınlaşdırılmışdır.

Beləliklə, aparılan tədqiqat nəticəsində məlum oldu ki, Böyük Qafqazın Azərbaycana aid olan hissəsindəki süni və təbii meşəliklərdə geniş yayılan *Trametes pubescens*-in həm vegetativ mitseliləri, həm də kultural məhlulunda stimullaşdırıcı təsir xüsusiyyətlərinə malik boloji aktiv maddələr vardır. Eyni zamanda qeydə alınan ksilotrof makromisetlərin hamısının kultural məhlullarının tərkibində stimullaşdırıcı təsir effektinə malik bioloji aktiv metabolitlərin olması, məhz bu göbələklərdən gələcəkdə farmokologiyada tibbi preparatların işlənib hazırlanmasında istifadə olunacaq bioloji aktiv maddələrin produsenti kimi istifadəsinə imkan yaradır.

**ƏDƏBIYYAT SIYAHISI**

Akhundova N., Orucova S., Bahshaliyeva K., Muradov P. and Rahimov E. (2019). Evaluation by the Oxidase Activity of Xylotropic Macromycetes Causing White Decay. Advances in Bioscience and Biotechnology, 10, 179–18.

Baxi S.N., Portnoy J.M., Larenas-Linnemann D. et al. (2016). Exposure and Health Effects of Fungi on Humans.// Journal Allergy Clin. Immunol Pract., 4(3), 396–404.

Elkhateeb W.A., Daba G. M., Thomas P. W., Wen T. C. (2019). Medicinal mushrooms as a new source of natural therapeutic bioactive compounds. Egypt Pharmaceut J, 18, 88–101.

Hyde K.D., Xu J., Rapior S. et al. (2019). The amazing potential of fungi: 50 ways we can exploit fungi industrially.// Fungal Diversity, 97, 1–136.

Kalač P. (2012). Radioactivity of European wild growing edible mushrooms. In: Andres, S. & Baumann, N. (Eds): Mushrooms: Types, Properties and Nutrition. New York, Nova Sci. Publ., 215-230.

Osinska-Jaroszuk M., Jarosz-Wilkołazka A., Jaroszuk-Sciseł J., Szałapata K.et al. (2015). Extracellular polysaccharides from Ascomycota and Basidiomycota: production conditions, biochemical characteristics, and biological properties.// World J Microbiol Biotechnol., 31, 1823–1844.

Бондарцева М. А. (1998). Определитель грибов России. Порядок афиллофоровые. СП.: Наука, 2, 391.

Билай В. И. (1982). Методы экспериментальной микологии/Под. ред. Киев: Наукова думка, 1982, 500.

# BƏZİ ODUNCAQLI BİTKİLƏRDƏ GÖBƏLƏK XƏSTƏLİKLƏRİ

**VƏFA HƏSƏNOVA, AYGÜN BEHBUDOVA**

AR ETN Mikrobiologiya İnstitutu
*hasanova.vafa@mail.ru*
BAKI, AZƏRBAYCAN

**SUMMARY**

The presented work is devoted to the study of diseases caused by xylotrophic macromycetes in some woody plants common in natural and artificial forests of the Greater Caucasus in Azerbaijan. During the research, 54 strains of 9 species of xylotrophic macromycetes were obtained, distributed on more than 80 woody plants. Also among the registered xylotrophic macromycetes, Fomitopsis pinicola, Laetiporus ulfureus, Shizophyllum commune were destructive to the wood of woody plants, and the rest were corrosive-type decomposing agents. It has been established that the majority of registered xylotrophic macromycetes in natural conditions are pathogens of the white rot type, are polytrophic in ecological-trophic relationships and cause predominantly wood diseases of damaged, weakened and dried plant stems.

**KEY WORDS:** xylotrophic macromycetes, natural and artificial forests, types of decay, corrosion and destructive decomposition

**XÜLASƏ**

Təqdim olunan iş Böyük Qafqazın Azərbaycana aid olan hissəsindəki təbii və sünii meşəliklərində yayılmış bəzi oduncaqlı bitkilərdə ksilotrof makromisetlərin törətdiyi xəstəliklərin öyrənilməsinə həsr olunmuşdur. Tədqiqatın gedişində 80-dən çox oduncaqlı bitki üzərində yayılmış ksilotrof makromisetlərin 9 cinsinə aid 9 növündən 54 ştamm əldə edilmişdir.. Məlum olmuşdur ki, qeydə alınan göbələklərin hamısı Basidiomycota şöbəsinə aiddir. Həmçinin, qeydə alınan ksilotrof makromisetlərdən *Fomitopsis pinicola, Laetiporus sulphureus, Shizophyllum commune*-nin ağac bitkisinin oduncağında destruktiv, yerdə qalanlarının isə korrozion tipli parçalanma törədiciləri olması müəyyənləşdirilmişdir. Eyni zamanda qeydə alınan ksilotrof makromisetlərin əksəriyyətinin təbii şəraitdə ağ rəngli çürümə tipi törədiciləri, ekolo-trofiki əlaqələrinə görə politrof olmaları və əsasən də zədələnmiş, zəifləmiş və qurumuş bitki gövdələrinin oduncaqlarında xəstəlik törətdikləri müəyyənləşdirilmişdir.

**AÇAR SÖZLƏR:** ksilotrof makromisetlər, təbii və süni meşəliklər, çürümə tipləri, korrozion və destruktiv parçalanma

## GIRIŞ

Planetimizin ağ ciyərləri hesab olunan meşələr tikinti materialları, aşılayıcı, dərman, boyaq və bir sıra müxtəlif faydalı məhsulların, o cümlədən bir çox sosial funksiyaların daşıyıcısıdır. Meşə ekosistemi həyat üçün vacib olan biosferdə karbon qazını udaraq atmosferi oksigenlə zənginləşdirir. Yağış, qar sularını udaraq yeraltı su ehtiyatını artırır. O cümlədən, suyu atmosferə buxarlandırır və havanın rütubətini artıraraq iqlimə faydalı təsir göstərir. Meşə ekosistemləri, həmçinin, qar əriməsinin intensivliyini və çaylarda suyun səviyyəsini tənzimləyərək su dövriyyəsində aparıcı rol oynayır. Planetimizdə mövcud olan bütün bitki, heyvan və göbələk növlərinin təxminən dörddə üçünün əsas yaşayış yeri hesab olunan meşələr məhz atmosferin tərkibini sabitləşdirərək meşə örtuyu altında bu canlı orqanizmləri, yəni fauna və mikroorqanizmləri qoruyur. Bir çox bitki patogen orqanizmlərin inkişafına maneə törədən və bununla da ətraf mühitin sağlamlığını yaxşılaşdıran fitonsidlər ifraz edirlər. Eyni zamanda meşələr bioloji müxtəlifliyin əsas hissəsinin, yəni planetimizdə mövcud olan canlı orqanizmlərin və ekosistemlərin müxtəlifliyinin mövcudluğunda da mühüm rola malikdir (Бунятова и др., 2015; Рогозин, 2016).

Bu qədər mühüm funksiyalar yerinə yetirməsinə baxmayaraq meşələrin sahəsi ildən-ilə getdikcə azalır. Bunların da nəticəsində üzvi maddələrin miqdarı, karbon qazının udulma mənbələri azalır, enerji, su dövranı və biogen elementlərin dövranının spektrinin xarakterinin dəyişməsi, eləcə də biosferin sabitliyinin pozulması baş verir ki, bu da səhralaşmanın yaranmasına real şərait yaradır. Bu

problemlərin yaranmasında əsas amil antropogen xarakterli olsa da, digər amillər də nəzərdən keçirilməlidir. Belə ki, meşələrin əsasını təşkil edən oduncaqlı bitkilər müxtəlif patogenlər, qida maddələrinin çatışmazlığı, iqlim dəyişikliyi, həmçinin, zərərvericilərin hücumundan əziyyət çəkir. Bunların içərisində göbələklərin meşələrdəki oduncaqlı bitkilərə göstərdiyi mənfi təsir daha çox diqqəti cəlb edir. Belə ki, oduncaqlı bitkilərin xəstəliklərinin əsas törədiciləri göbələklərdir. Göbələklər tərəfindən törədilən xəstəliklər meşənin məhsuldarlığını azaldır ki, bu da təbii olaraq ağacın keyfiyyətinə və kəmiyyətinə təsir göstərir. Bundan başqa oduncaqlı bitkilərin xəstəlikləri onların məhv olmasına və beləliklə, ölü ağacların toplanmasına gətirib çıxardır ki, bu da meşələrin sanitar vəziyyətinin pisləşməsinə və yanğın təhlükəsinin artmasına səbəb olur. Məhz, bu baxımdan təqdim etdiyimiz işin məqsədi Böyük Qafqazın Azərbaycana aid olan hissəsindəki təbii və sünii meşəliklərdə yayılmış bəzi oduncaqlı bitkilərdə göbələk xəstəliklərinin öyrənilməsinə həsr olunmuşdur (Сидельникова, Власов, 2019; Gungor et al, 2017; Gungor et al, 2019).

**TƏDQIQAT METODU**

Tədqiqat ərazisi kimi Böyük Qafqazın Azərbaycana aid olan hissəsindəki təbii və sünii meşəliklər götürülmüşdür. Nümunələr marşrut metodu ilə toplanılmışdır. Belə ki, hər bir işə başlamazdan öncə marşrut seçilir ki, bura landşaft şəraitinin müxtəlifliyinin, biosenozların tərkibinin, bu ərazidə yerləşən təbii və sünii meşələrə antropogen təsirin dərəcələrinin, konkret meşənin hansı ərazilərində xəstəlik əlaməti olan bitkilərin əmələ gəlməsinin, xəstəliklərin ən çox nəzərəçarpan ocaqlarının olmasının öyrənilməsi durur. Tədqiqat obyekti olaraq təqribən 80-dən çox oduncaqlı bitki üzərində inkişaf edən makromisetlərin meyvə cisimləri ilə birlikdə quruma əlaməti olan canlı ağacların budaqları, gövdələri və eləcə də bitki qalıqlarında inkişaf edən makromisetlərin meyvə cisimləri götürülmüşdür. Toplanılmış nümunələrin təyinatı işıq mikroskopu və standart təyinedicilərdən istifadə edilməklə həyata keçirilmişdir (Бондарцева, 1998; Мухин, 1997; Phillips, 1982).

**NƏTICƏ**

Azərbaycanın şimal və şimal-şərq hissələrini əhatə edən, zəngin təbiətə malik olan Böyük Qafqazın Azərbaycana aid olan hissəsindəki təbii və süni meşəliklərdə mikoloji tədqiqatların aparılması üçün 11 növ oduncaqlı bitki seçilmişdir: 12- ağcaqovaq (Polpulus alba), 10- adi qovaq (Populus euphratica), 6- at şabalıdı (Aesculus hippocastanum ), 5- adi söyüd (Salix excels), 8- ürəkvari cökə (Tilia cordata), 5- adi göyrüş (Fraxinus excelsior), 5- ağ tut (Morus alba), 14-şabalıdyarpaq palıd (Quercus castaneifolia), 4- yabanı püstə (Pistacia mutica), 7- kiçik qarağac (Ulmus minor), 6- saqqallı qızılağac (Alnus barbata). Tədqiqatın gedişində introduksiya edilmiş 11 növ oduncaqlı bitkidə ümumilikdə 9 cinsə aid 9 növdən 54 ştamm ksilotrof makromiset müəyyən edilmişdir. Müəyyənləşdirilmişdir ki, qeydə alınan makromisetlərin hamısı Basidiomycota şöbəsinə aiddirlər.

Tədqiqat nəticəsində qeydə alınan 9 növ makromiset aşağıdakılardan ibarətdir: *Armillaria mellea, Bjerkandera adusta, Daedalea quercina, Fomes fomentarius, Fomitopsis pinicola, Ganoderma applanatum, Laetiporus sulphureus, Phellinus igniarius, Schizophyllum commune.* Qeyd edilən ərazilərdə təbii şəraitdə qəhvəyi və ağ rəngli çürümə törədən ksilotrof makromisetlərin birillik və çoxillik meyvə cisimlərinə rast gəlinmişdir. Tədqiq olunan ərazilərdə yaşı çox olan oduncaqlı bitkilər üzərində yayılan qonur rəngli çürümə törədiciləri arasında *Laetiporus sulphureus* daha çox təhlükəli hesab olunur. Lakin adi söyüd, at şabalıdı, şabalıdyarpaq palıd üzərində təbii şəraitdə ağ rəngli çürümə törədənlər arasında isə *Phellinus igniarus* xüsusilə təhlükəlidir. Tədqiqat zamanı məhv olmuş ağaclarda müşahidə olunan, lakin ciddi şəkildə zəifləmiş canlı ağaclarda məskunlaşa bilən aşağıdakı makromisetlər- *Ganoderma applanatum, Fomes fomentarius, Shizophyllum commune, Daedalea quercina* qeydə alınmışdır. Bunlarla yanaşı əsasən canlı ağaclarda məskunlaşan, lakin məhv olmuş ağaclarda da müşahidə olunan qeydə alınan ksilotrof makromisetlər arasında *Armillaria mellea* daha çox diqqəti cəlb edir. Tədqiqat aparılan ərazilərdə canlı oduncaqlı bitkilər üzərində ksilotrof makromisetlərin yayılması daha çox müşahidə edilmişdir.

Aparılan tədqiqat zamanı qeydə alınan makromisetlər bitkinin oduncağında törətdiyi parçalanma tipinə görə də xarakterizə edilmişdir. Belə ki, tədqiqat zamanı məlum olmuşdur ki, oduncaqların korrozion tipli parçalanması zamanı oduncaq ağ rəngə boyanır. Buna səbəb oduncaqda bütün hüceyrə divarlarında biokimyəvi parçalanmanın baş verməsidir ki, bu zaman liqnin sellülozaya nisbətdə daha sürətlə parçalanmaya məruz qalır və oduncaqda yüksək miqdarda sellüloza toplanmış olur. Beləliklə, oduncaqda kiçik dəliklər yaranır ki, bu da sonradan digər dəliklərlə birləşərək böyük bir boşluq əmələ gətirirlər. Nəticədə parçalanmamış sellülozadan ibarət ağ rəngli boşluqlar yaranır. Bununla da ağacı

məhv edir. Lakin destruktiv tipli parçalanma zamanı isə oduncaq qonur rəngə boyanır. Bunun isə səbəbi oduncaqda sellüloza və hemisellülozanın parçalanmaya məruz qalmasıdır ki, bunun da nəticəsində bitki mexaniki gücünü itirir, oduncaqda eninə və uzununa çatlar əmələ gəlir və sonda oduncaq kiçik hissələrə parçalanır. Həmçinin, qeydə alınan ksilotrof makromisetlərdən *Fomitopsis pinicola, Laetiporus sulphureus, Shizophyllum commune* göbələklərinin oduncaqda destruktiv, yerdə qalanların isə korrozion tipli parçalanma törədiciləri olması müəyyənləşdirilmişdir.

Beləliklə, təbiəti zəngin mikobiotaya malik Böyük Qafqazın Azərbaycana aid olan hissəsindəki təbii və sünii meşəliklərində aparılan mikoloji tədqiqatlar nəticəsində 80-dən çox oduncaqlı bitkidə 9 növ ksilotrof makromisetlər qeydə alınmışdır. Xəstəliklər tədqiq olunan ərazilər üzrə qeyri-bərabər yayılmışıdır. Buna görə də ağac bitkilərində xəstəliklərin yayılması və inkişafını orta dərəcədə səciyyələndirmək olar. Aydınlaşdırılmışdır ki, qeydə alınan ksilotrof makromisetlər əsasən canlı və ölməkdə olan ağacların gövdələrində inkişaf edirlər. Məhz bu ksilotrof makromisetlərin növ tərkibinin, onların substrat spesifikliyinə görə paylanmasının, təbii şəraitdə əmələ gətirdikləri çürümüə tiplərinin və s. xüsusiyyətlərinin öyrənilməsi bu göbələklərin törətdikləri xəstəliklərin vaxtında aşkarlanması və onlara qarşı mübarizə tədbirlərinin işlənib hazırlanmasında geniş şəkildə istifadəsinə imkan yaradır.

**ƏDƏBIYYAT SIYAHISI**

Gungor M.S., Abasova T.S., Aliyeva B. N., Alibeyli N.S and Muradov P.Z. (2019). Species Composition and Rotten Diseases of Tree Species in Subtropical Forests of Azerbaijan.5//Int J Recent Sci Res., 10(06), 32722-32725

Gungor M.S., Abbasova T.S., Alyieva B.N., Alibeyli N.S., Muradov P.Z.( 2017). Rotting diseases at the main forest-forming wood breeds of Azerbaijan.//Mitteilungen Klosterneuburg(Avstriya, ISI İndexed Journal), 67(4), 31-36

Phillips D.K., Burdekin D.A. (1982). Diseases of forest and ornamental trees. UK: Palgrave Macmillian, 463

Бондарцева, М. А. (1998). Определитель грибов России. Порядок афиллофоровые. [Текст] / М. А. Бондарцева. – СПб: Наука, 2, 391

Бунятова Л.Н., Гасанова В.Я., Эминова Г.Б., Алыева Б.Н. и др. (2015). Ксиломикобиота лесных экосистем Азербайджана.//Вестник МГОУ, серия «Естественные науки», 3, 20-24

Мухин, В. А. (1997). Полевой определитель трутовых грибов [Текст] / Екатеринбург, 104

Сидельникова М.В., Власов Д.Ю. (2019). Особенности распространения грибных болезней деревьев и кустарников в парках государственного музея-заповедника «ПЕТЕРГОФ». Известия Санкт-Петербургской лесотехнической академии. 228, 336-351

Рогозин М.В. (2016). Лесные экосистемы и геобиологический сети. Монография. Пермь, 171

# CLEMATİS L. CİNSİNƏ AİD BƏZİ NÖVLƏRİN ABŞERON ŞƏRAİTİNDƏ İNTRODUKSİYASI VƏ İQLİMLƏŞDİRİLMƏSİ

**BƏDƏL-ZADƏ NIGAR**
Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Dendrologiya İnstitutu
Botanika
*nigarbadalzade@mail.ru*

BAKI, AZƏRBAYCAN

## XÜLASƏ

*Clematis* cinsinə aid olan növlər dekorativ olub, yaşıllaşdırmada çiçəklərinin rənginə, meyvəsinə, sarmaşma və digər xüsusiyyətlərinə görə geniş istifadə olunur. Respublikamızda bu cinsə aid olan növlərə əsasən Lənkəranda, Naxçıvanda, quru və otlu yamaclarda, çəmənlərdə, qumlu yerlərdə, qayalıqlarda və kölgəli ərazilərdə təbii halda rast gəlmək mümkündür. İstiyə, quraqlığa, soyuğadavamlı bitkidir. Lənkəranda, Zaqatala-Balakən zonalarında rütubətli yerlərdə, çay kənarında ağaclara sarmaşırlar. Tədqiqat işində Azərbaycanda təbii və mədəni şəraitdə becərilən *Clematis* cinsinə aid növlər taksonomik, sistematik təhlil edilmişdir. Bu cinsə aid olan növlərdən ibarət tədqiqat işi Dendrologiya İnstitutunun təcrübə sahəsində yerli və xarici ölkələrdən mübadilə əsasında gətirilmiş

növlər əlverişli əkin vaxtı seçilməklə və toxumla çoxaldılmışdır. *Ranunculaceae* Juss. fəsiləsi ikiləpəlilər sinfinə daxil olub, əsasən birillik, ikiillik, çoxillik ot, kol və kolcuqlardan ibarətdir. Fəsiləyə 53 cins, 2 minə yaxın növ daxildir, əsasən Şimal yarımkürəsində, Arktikada, tropik zonalarda və dağlıq ərazilərdə yayılmışdır. *Clematis* L. cinsi *Ranunculaceae* fəsiləsinin ən çox yayılmış cinslərindən biridir. Dünyada bu cinsə 300 növ, 2000 forma və sort daxildir. *Clematis* L. cinsinə aid olan növlər müxtəlif həyati formalara malik olub, təbiətdə lian, kol, yarımkol, ot formalarında olub, Avroasiyada, Şimali- Cənubi Amerikada, Avstraliyada, Afrikada təbii halda geniş arealları əhatə edir. Azərbaycanda Böyük və Kiçik Qafqazda, Naxçıvan MR, Hirkan florasında 3 növ: *C.viticella* (Bənövşəyi ağəsmə), *C.vitalba* (Üzümyarpaq ağəsmə), *C.orientalis* (Şərq ağəsməsi) yayılmaqla, təbii şəraitdə rast gəlinir. *Clematis* L. cinsinə aid növlərin Abşeron şəraitində introduksiyası və iqlimləşdirilməsi istiqamətində tədqiqat işi aparılmışdır. Bu cinsə aid olan növlər Dendrologiya İnstitutunun təcrübə sahəsində toxumla çoxaldılması elmi əsaslarla öyrənilmişdir.

**AÇAR SÖZLƏR:** *Clematis* L., introduksiya, iqlimləşdirmə

## GİRİŞ:

*Clematis* L. cinsinin növləri dekorativ olub, yaşıllaşdırmada çiçəklərinin rənginə, meyvəsinə, sarmaşma xüsusiyyətlərinə görə geniş istifadə olunur. Respublikamızda *Clematis* L. cinsinə aid olan növlərə əsasən Lənkəranda, Naxçıvanda, Böyük Qafqazda, Kiçik Qafqazda, quru və otlu yamaclarda, çəmənlərdə, qumlu yerlərdə, qayalıqlarda, kölgəli ərazilərdə təbii halda yayılmışdır. İstiyə, quraqlığa, soyuğadavamlı bitkidir. Lənkəranda, Zaqatala-Baləkən zonalarında klematislər rütubətli yerlərdə, çay kənarında ağaclara sarmaşırlar. Ərazi rəngarəng landşaft müxtəlifliyinə malikdir. Ərazidə səhra, yarımsəhra, bozqır və dağ-çəmən landşaftları vardır. Tədqiqat işində Azərbaycanda təbii və mədəni şəraitdə becərilən Klematis cinsinə aid növlər taksonometrik, sistematik təhlil edilmişdir.

## TƏDQİQAT METODU:

Ranunculaceae fəsiləsi İkiləpəlilər sinfinə daxil daxil olub, əsasən birillik, ikiillik, çoxillik ot, kol və kolcuqlardan ibarətdir. Fəsiləyə 53 cins, 2 minə yaxın növ daxildir, əsasən Şimal yarımkürəsində, Arktikada, tropik zonalarda, dağlıq ərazilərdə bitir.

*Clematis* L. cinsi - Ranunculaceae fəsiləsinin ən çox yayılmış cinslərindən biridir. Dünyada cinsə 300 növ, 2000 forma və sort daxildir. *Clematis* L. cinsinə aid olan növlər müxtəlif həyati formalara malik olub, təbiətdə lian, kol, yarımkol, ot formalarında olub, Avroasiyada, Şimali- Cənubi Amerikada, Avstraliyada, Afrikada təbii halda geniş arealları əhatə edir. Azərbaycanda Böyük və Kiçik Qafqazda, Naxçıvan MR, Hirkan florasında 3 növ: *C.viticella* (Bənövşəyi ağəsmə), *C.vitalba* (Üzümyarpaq ağəsmə), *C.orientalis* (Şərq ağəsməsi) təbii şəraitdə rast gəlinir. Clematis cinsinə aid olan növlərdən ibarət tədqiqat işi Dendrologiya İnstitutunun təcrübə sahəsində yerli və xarici ölkələrdən mübadilə əsasında gətirilmiş növlərin toxumları əlverişli əkin vaxtı seçilməklə çoxaldılmışdır. Tədqiqat işində Azərbaycanda təbii və mədəni şəraitdə becərilən *Ranunculaceae* Juss. fəsiləsinə aid olan *Clematis* L. cinsindən növlər taksonomik, sistematik təhlil edilmişdir. Hal-hazırda kolleksiya fondunda əkilmiş *Clematis* L. cinsinə aid *C.fruticosa, C.heracloifolia, C.orientalis, C.paniculata, C.montana, C.flammula, C.brevicaudata n*övlərinin bioekoloji xüsusiyyətlərinin öyrənilməsi istiqamətində tədqiqat işləri aparılır. (Şəkil 1.)

Məqalədə tədqiq olunan növlərin təbii yayılması, botaniki təsviri, ekologiyası, istifadəsi təhlil edilmişdir.

Tədqiqatın əsas məqsədi *Clematis* L. cinsinə aid olan növlərin biomorfologiyası, ekologiyası, xalq, ənənəvi təbabətdə istifadəsi, fitokimyəvi tərkibi və xalq təsərrüfatının müxtəlif sahələrində tətbiq olunmasının öyrənilməsindən ibarət olmuşdur. Tədqiqat işi *Clematis* L. cinsinin növlərinin yarpaq və çiçəkləri üzərində aparılmışdır.

Azərbaycanda Böyük və Kiçik Qafqazda, Naxçıvan MR, Hirkan florasında 3 növ: *C.viticella* (Bənövşəyi ağəsmə), *C.vitalba* (Üzümyarpaq ağəsmə), *C.orientalis* (Şərq ağəsməsi) yayılmaqla, təbii şəraitdə rast gəlinir. Clematis cinsinə aid növlərin Abşeron şəraitində introduksiyası və iqlimləşdirilməsi istiqamətində tədqiqat işi aparılmışdır. Bu cinsə aid olan növlər Dendrologiya İnstitutunun təcrübə sahəsində toxumla çoxaldılması elmi əsaslarla öyrənilmişdir.

*Clematis flammula* L. növünün Vətəni Şimali Afrika və Avropa əraziləridir. Təbiətdə bu növünün yayılma diapazonu (zonaları) Cənubi Avropa, Şimali Amerika, Şimali Afrika, Aralıq və Qara dəniz sahillərini əhatə etməklə əsasən seyrək meşəliklərdə və kolluqlarda bitir. MDB ölkələrində isə

Belorusiya, Kalininqrad diyarı, Ön və Orta Asiya, Qərbi Qafqaz, Krım ərazilərində yayılmışdır (T.S.Məmmədov 2018).

Tədqiq olunan növlərin təbii yayılması, botaniki təsviri, ekologiyası, istifadəsi təhlil edilmişdir. Aparılmış 4-5 aylıq müşahidələr onu deməyə əsas verir ki, toxumların cücərməsi və məhsuldarlığı ərazinin torpaq-iqlim şəraitindən asılılığını göstərir. Tədqiq olunan növün ontonogezi hal-hazırda genetik şəraitdən asılı olaraq dəyişir. Ontogenezi 4 mərhələdə keçir. Ontogenezin inkişafı onun morfoloji, fizioloji dəyişikliklərinə təsir edir. Latent dövrü toxumların, generativ dövr isə bitkinin inkişafının əsas amilidir. Belə ki, Abşeron yarımadasının iqlimi əsasən zəif və quru subtropikdir. İl ərzindəki günəşli günlərin sayı 2200-2400 saatdır. Ən soyuq ayın orta temperaturu qışın sərtliyi ərazi üçün yumşaq (0; −5ºC), çox yumşaq (2,5-0ºC) və həddən çox yumşaq (5-2,5ºC) şəraitdə keçir. Bakı ən az yağıntılı (200-400 mm) və ən küləkli şəhərlərdən biridir. İyun-sentyabr aylarında quraqlıq keçən günlərin sayı 5-25 gün ətrafında dəyişmişdir. Abşeron yarımadasında müşahidə edilən iqlim dəyişkənliyi toxumların cücərmə faizinə və dinamiki inkişafına da öz təsirini göstərmişdir.

Uzunluğu 5 m-ə qədər lian olmaqla meşəli ərazilərdə yayılmışdır. Yarpaqları adətən cüt olmayan tək, ikili lələkvarı, yan yarpaqlar çox vaxt üç yarpaqlı və ya 2-3 paylı olur. Yarpaqları enli yumurtavaridən ensiz neştərvariyə qədər dəyişməklə 1.5-4 sm uzunluğunda uclu və ya küt, dibində yuvarlaq kəsikvari, paylı olmaqla parlaq yaşıl və tüksüzdür. Çiçəkləri ağ, ətirli olmaqla, diametri 2-3 sm, çoxçiçəkli, süpürgəvari çiçək qrupunda toplanmışdır. Kasa yarpağının uzunluğu 4-10 mm, küt olub. kənarları tükcüklüdür. Toxumlar çılpaq və ya tükcüklü, qanadlı olub, 6-7sm-dır. İyun-avqust aylarında çiçək açır, avqust-sentyabr aylarında meyvə verir.

Fransada ot kimi biçilir və mal-qara tərəfindən yeyilir. İnsektisit xüsusiyyətə malikdir.

*Clematis brevicaudata DC.* - *Qısaquyruqlu ağəsmə* - Təbiətdə əsasən Uzaq Şərqdə kolluqlarda, meşələrdə, çayların sahillərində, daşlı yamaclarda bitir. Gövdələri dırmaşan, çoxsaylı, sıx hörük əmələ gətirir. Yarpaqları lələkvari, alt hissələri üç yerə bölünmüş, digərləri bütövdür; hissələri yumurtavari-lansetvari, uzun, ucu biz, kənarları oyuqlu-dişli, yuxarı tərəfi batıq, alt tərəfi qabarıq damarcıqlı, əsasən çılpaq, bəzən bir az tükcüklüdür. Çiçəkləri xırda, uzunsov, çoxçiçəkli çiçək qruplarına yığılmışdır. Kasayarpaqları ağ və ya açıq sarı, uzunluğu 1,5 sm-dək, üst tərəfi tükcüklüdür, erkəkcik saplaqları çılpaqdır. Meyvələri az batıq, çox və ya az tükcüklüdür. Sütuncuğun uzunluğu 3 sm-dir (T.S.Məmmədov 2018).

Abşeron şəraitində toxumla çoxaldılması üzrə tədqiqat işləri aparılır. Beləki, toxumlar payızda noyabr ayının I ongünlüyündə, yazda isə mart ayının II ongünlüyündə sahələrə səpilmişdir. Payızda səpilmiş toxumlardan ilkin cücərtilər aprel ayının I ongünlüyündə, yazda səpilmiş toxumlardan isə aprel ayının III ongünlüyündə cücərtilər görünməyə başlamışdır. Payız əkinindən 28-32%, yaz əkinindən isə 18-24% cücərti alınmışdır. Tədqiqatlar davam etdirilir.

Ussuriya tayqasında iyun-avqust aylarında mal-qara tərəfindən yaxşı yeyilir. Donuzlarda bu qidanı sevirlər. Balverən bitkidir. Nektar və tozcuq toplamaq üçün arılar tərəfindən istifadə olunur. 100 çiçəyin (şəkər məhsuldarlığı) tozcuğu orta hesabla 62,5 mq-dır (Риекстиня В.Э., Риекстинъш И.Р. (1990).

Abşeron şəraitində istiyə, işığa davamlıdır. Torpağa tələbkar deyildir.

Yaşıllaşdırmada tək və qrup əkinlərində istifadə olunur.

*Clematis fruticosa Turcz.* - *Kolvari ağəsmə* - Şimali Çin və Şimali Monqoliyada təbii halda yayılmışdır.

Növ kiçik, düz kol formasındadır. Gövdələri 1m-dək, budaqları xırda 4 və ya 5 hissəli, parlaqdır. Yarpaqları sadə, saplağı 0,3-1,2 sm, yarpaq ayası lansetvari, uzunsov-lansetvari və ya ensiz, rombvari - yumurtavari, bölünməmiş, hər tərəfdən 1 hissəli, kənarları bir az dişli və ya bütövdür. Çiçək altlıqları yarpaqvari, çiçəklərin diametri 1,8-3,5 sm, çiçək saplağı 0,4-1,8 sm, erkəkcikləri 8-13 mm, çılpaq, tozluqları ensiz-uzunsov, 2,5-4 mm, ucu kütdür. Yumurtaları tükcüklüdür. Avqustun axırı çiçəkləyir. Dörd ləçəkli açıq çiçəkləri yuxarıya baxır.Tədqiq olunan növün toxumları Vuhan Botania bağından gətirilmişdir. Toxumlar payızda noyabr ayının III ongünlüyündə və yazda mart ayının I ongünlüyündə Dendrologiya İnstitutunun təcrübə sahələrinə səpilmişdir. Payızda səpilmiş toxumlardan 52-56%, yazda səpilmiş toxumlardan isə 44-47% cücərti alınmışdır.

Hal-hazırda toxumla çoxaldılması istiqamətində tədqiqat işləri aparılır.

*Clematis heracleifolia DC.* - *Borşevikyarpaq ağəsmə* - Şərqi Çində, Koreyada təbii halda yayılmışdır. 1837-ci ildən mədəni şəraitdə Avropada dekorativ bağ bitkisi kimi becərilir.

Hündürlüyü təxminən 1 metr olan, düz, alt hissəsində oduncaqlaşmış, cod zoğları olan çoxillik bitkidir. Gövdələri düz dayanan, ancaq bünövrəsində çox və ya az oduncaqlaşmış, yumru, seyrək tükcüklü, zərifdir. Yarpaqları iri, dərili, üç-lələkvari, uzunluğu 15 sm-dəkdir. Çiçəklərin diametri təxminən 2,5 sm, 4 ədəd, parlaq mavi, ətirli, kənarları kəsikli ləçəkləri sünbülçiçək formalıdır. Avqust-sentyabrda çiçəkləyir. Toxumları 0,5-3 ay müddətində cücərir. Səpindən sonra ikinci il çiçəkləyir (Raymond J. Evison, 2007).

Şaxtaya davamlıdır. Uzun vegetasiya dövrü ilə fərqlənir (isti-mülayim zonada əsasən noyabradək), zoğları ona görə çox vaxt yetişmir. Abşeron şəraitində toxumla çoxaldılması məqsədilə Suel Botanika Bağından toxumlar gətirilmişdir. Toxumlar dekabr ayının I ongünlüyündə, yazda isə fevral ayının III ongünlüyündə təcrübə sahələrinə səpilmişdir. Qış mövsümündə səpilmiş toxumlardan 28-32%, yazda səpilmiş toxumlardan isə 18-21% cücərti alınmışdır.

Respublikamızda dekorativ bitki kimi becərilməsi məqsədyönlüdür.

*Clematis montana Buch.Ham. ex DC. - Dağ ağəsməsi* - Təbiətdə növün arealı Əfqanıstanı, Pakistanı, Hind-Çini və Tayvanı əhatə edir. Avropada və Şimali Amerikada mədəni şəraitdə geniş yayılmışdır.

Uzunluğu 8 m-dək olan oduncaqlı lianadır. Yarpaqları çox vaxt üçər, qısa saplaqlı, uzunluğu 3-10 sm, ucu biz, kənarları dərin dişli, bəzən kənarları bütöv, çılpaq və ya təxminən çılpaq yarpaqcıqlardan ibarətdir. Çiçəkləri 1-5 ədəd dəstələrdə, əsasən ağ, diametri 3,5-5 sm, nazik, uzunluğu 5-10 sm olan çiçək saplaqlarında yerləşir. Kasayarpaqları ellipsvari və ya uzunsov, üst tərəfi zəif tükcüklü, erkəkcikləri sarıdır. Toxumcaları çılpaq, uzunluğu 7 mm, eni 4-4,5 mm, lələkvari olub, uzunluğu 5 sm-ədəkdir. Mayda çiçəkləyir. İyulda-avqustda meyvə verir(T.S.Məmmədov, 2002).

Bitki vətənində istiyə, quraqlığa və soyuğa davamlı hesab olunur.

Toxumlar Avstriyanın paytaxtı Vyana Botanika Bağından toxum mübadiləsi əsasında alınmış, toxumlar payız və yaz mövsümlərində sahələrə səpilmiş cari ildə payızda səpilmiş toxumlardan 17-23%, yazda səpilmiş toxumlardan isə 12-15% cücərti alınmışdır. (Şəkil3.)



**Şəkil 1.** *Clematis toxumlarının ölçülməsi, qapalı və açıq sahələrdə əkilməsi.*

Gələcəkdə yaşıllaşdırmada tək və qrup əkinlərində istifadəsi tövsiyə olunur.

*Clematis orientalis L. - Şərq ağəsməsi* - Orta Asiyada, Avropada, Qafqazda, Monqoliyada, Çində təbii halda çay kənarlarında, qayalarda, yarımsəhra, səhra torpaqlarda yayılmışdır. Orta miqdarda tüstü və qaza davamlıdır. Yarpaqları açıq boz-yaşıl, lələkvari bölünmüş, cod, forma və ölçüsünə görə müxtəlifdir. Yarpaqların qoltuqlarında süpürgəvari çiçək qruplarında, uzunluğu 4-10 sm olan nazik çiçək saplaqları yerləşir. Çiçəkləri tüklü, sarımtıl, diametri 5-7 sm olub, kasayarpaqları 4 ədəd, sarımtıl, bəzən üstdən qırmızımtıl, hər iki tərəfdən qısa tüklü, uzunsov-neştərvari və ya ensiz yumurtaşəkilli-neştərvari olub, uzunluğu 1,5-2,5 sm-dir. Erkəkciklərin saplaqları bünövrədə enli, tüklüdür. İyun-avqust aylarında çiçəkləyir. Avqust-sentyabrda meyvə verir. Meyvələri dekorativ, tüklü, ipəkvari-gümüşüdür. Toxumla, qələmlə çoxalır (John Howells, 2005).

Respublikamızda Böyük və Kiçik Qafqazda, Kür-Araz ovalığında və Naxçıvan MR-da təbii halda rast gəlinir, lakin bu növ Abşeron şəraitində ilk dəfə olaraq tərəfimizdən yerli şəraitə inroduksiya edilir.

Toxumları payızda oktyabr ayının I ongünlüyündə, yazda isə mart ayının II ongünlüyündə sahələrə əkilmişdir. Payızda səpilmiş toxumlardan 82-87%, yazda səpilmiş toxumlardan isə 74-76% cücərti alınmışdır. Yerli şəraitdə yığılmış toxumlar təzə və stratifikasiya olunduğundan yüksək cücərmə qabiliyyətinə malik olmuşdur. (Şəkil 2.)

Məqsəd gələcəkdə Abşeronda dekorativ bitki kimi yaşıllaşdırmada istifadəsi nəzərdə tutulmuşdur.

*Clematis paniculata Thunb. - Süpürgəvari ağəsmə - Clematis paniculata* Thunb. növü Yaponiya və Koreyada təbii halda yayılmışdır. Sankt-Peterburqda, Cənubi Pribaltikada, Kalininqrad vilayətində, Belarusiyada, Ukraynada, Qafqazda və Orta Asiyada mədəni şəraitdə becərilir. Uzunluğu 10 m-dək olan yarpağı tökülən liandır. Uzunluğu 3-10 sm, yarpaqları 3-5 ədəd yumurtavari yarpaqcıqlı olub, çılpaq və ya alt tərəfi tükcüklü, damarcıqlıdır. Ağ, ətirli çiçəklərinin diametri təxminən 3 sm olan çoxçiçəkli süpürgəvari çiçək qrupuna toplanmışdır. Süpürgəvari ağəsmənin uzunsov kasayarpaqları üstdən çılpaqdır. Toxumcaları haşiyəli, bir az tükcüklü, uzun lələkvari tükcüklü olmaqla, çıxıntılıdır. Bu növün çiçəkləməsi iyuldan oktyabradək davam edir. Tez böyüyür, vegetasiya dövrü ərzində 3,5 m-dək artır. Ağəsmə qələm, calaq və toxumlarla çoxalır. Ştilləri payızda və ya yazda əkilir. Quru və nəm



torpaqlarda bitir. Toxumlar ilk dəfə

**Şəkil 2.** Clematis toxumlarının ilkin cücərtiləri və inkişafı

olaraq Avstriyanın paytaxtı Vyana Botanika Bağından gətirilmiş, payızda və yazda toxumla çoxaldılması təhlil edilmişdir. Payızda əvvəlcədən hazırlanmış sahələrə noyabr ayının II ongünlüyündə, yazda isə mart ayının II ongünlüyündə toxumlar sahələrə səpilmişdir.

*Clematis flammula L.– Dalayan ağəsmə. Tədqiqatın məqsədi Clematis flammula* L. növünün biomorfologiyası, ekologiyası, xalq, ənənəvi təbabətdə istifadəsi, fitokimyəvi tərkibi və xalq təsərrüfatının müxtəlif sahələrində tətbiq olunmasının öyrənilməsindən ibarət olmuşdur. Vətəni Şimali Afrika və Avropa ərazilərdir. Təbiətdə *Clematis flammula* L. növünün yayılma diapazonu (zonaları) Cənubi Avropa, Şimali Amerika, Şimali Afrika, Aralıq və Qara dəniz sahillərini əhatə edir. Seyrək meşəliklərdə və kolluqlarda bitir. MDB ölkələrində isə Belorusiya, Kalininqrad diyarı, Ön və Orta Asiya, Qərbi Qafqaz, Krım ərazilərində yayılmışdır. Ekologiyasına gəlincə qeyd etmək lazımdır ki, bu növ günəşli və isti yerlərdə daha yaxşı inkişaf edir. Torpağa tələbkar deyil, ancaq zəif turşulu, neytral və ya qələvili, drenajlı gillicəli torpaqlarda yaxşı bitir. Nəmişliyə tələbkardır. Dekorativ bitkidir. Parklarda, bağlarda canlı çəpərlərin və şaquli yaşıllıqların salınmasında istifadəsi məqsədyönlüdür.



**Şəkil 3.** *C.montana* və *C.paniculata* cücərtilərinin inkişafı

Toxumlar stratifikasiya olunduqdan sonra, payızda oktyabr ayının I ongünlüyündə, yazda isə mart ayının II ongünlüyündə sahələrə əkilmişdir. Payızda səpilmiş toxumlardan 52-54%, yazda səpilmiş toxumlardan isə 44-46% cücərti alınmışdır. Yerli şəraitdə yığılmış toxumlar təzə və stratifikasiya olunduğundan yüksək cücərmə qabiliyyətinə malik olmuşdur.

Tədqiqat işində Clematis növlərinin taksonometrik tərkibi, yayılma arealları, botaniki təsviri, ekologiyası, yaşıllaşdırmada və xalq təsərrüfatının müxtəlif sahələrində istifadəsi haqqında məlumatlar verilmişdir.

| ***Clematis* L. cinsinin növləri** | Yaz səpini %-lə | Payız səpini %-lə |
|---|---|---|
| C.brevicaudata | 18-24% | 28-32% |
| C.flammula | 56-58% | 62-64% |
| C.fruticosa | 44-47% | 52-56% |
| C.heracleifolia | 18-21% | 28-32% |
| C.montana | 12-15% | 17-23% |
| C.orientalis | 74-76% | 82-87% |
| C.paniculata | 44-46% | 52-54% |

**Cədvəl 1.** Tədqiq olunmuş *Clematis* L. cinsinə aid olan növlərin yaz və payızda səpilmiş toxumlarının cücərmə faizi cədvəldə verilmişdir.

**NƏTİCƏ:**

Tədqiqat işində Dünya və Yerli floradan götürülmüş *Clematis* L. cinsinə aid 7 növün taksonometrik tərkibi, yayılma arealları, botaniki təsviri, ekologiyası, yaşıllaşdırmada və xalq təsərrüfatının müxtəlif sahələrində istifadəsi haqqında məlumatlar verilmişdir. Cari ildə payızda və yazda sahələrə səpilmiş toxumlardan alınan ilkin cücərtilər, onların cücərmə faizi məqalədə öz əksini tapmışdır.

**İntroduction and acclimatization of some species *Clematis* L. in Absheron conditions**

**BADAL-ZADE NİGAR**
Dendrology İnstitute of the Ministry of Science and Education of the Republic of Azerbaijan
**Botany**
nigarbadalzade@mail.ru
BAKU, AZERBAIJAN

**SUMMARY**

The species belonging to the genus *Clematis* l. are decorative and are widely used in landscaping due to the color of their flowers, fruit, ivy and other characteristics. In our republic, species belonging to this genus can be found naturally in Lankaran, Nakhchivan, dry and grassy slopes, meadows, sandy places, rocks and shady areas. It is a plant resistant to heat, drought and cold. In Lankaran, Zagatala-Balakan zones, they climb trees in humid places, by the river. In the research work, taxonomically and systematically analyzed species belonging to the genus Clematis cultivated in natural and cultural conditions in Azerbaijan. The research work consisting of the species belonging to this genus was carried out in the experimental area of the Dendrology Institute. The species brought from local and foreign countries on the basis of exchange were selected and propagated by seeds at a favorable planting time. Ranunculaceae Juss. The family is included in the class of dicotyledons, mainly annuals. consists of biennial, perennial grasses, shrubs and bushes. The chapter includes 53 genera, about 2 thousand species, mainly distributed in the Northern Hemisphere, the Arctic, tropical zones and mountainous areas. The genus Clematis is one of the most common genera of the Ranunculaceae family. In the world, this genus includes 300 species, 2000 forms and varieties. The species belonging to the genus Clematis L. have different life forms, in nature they are liana, bush, semi-shrub, grass, and naturally cover wide areas in Eurasia, North-South America, Australia, Africa. 3 species are found

in natural conditions in the Greater and Lesser Caucasus, Nakhchivan MR, Hyrkan flora in Azerbaijan: C. viticella, C. vitalba, C. orientalis, and C. orientalis. Research work was carried out in the direction of introduction and acclimatization of Clematis species in Absheron conditions. The species belonging to this genus have been studied on the scientific basis of seed reproduction in the experimental field of the Dendrology Institute.
**KEY WORDS:** *Clematis* L. , introduction, acclimatization

**ƏDƏBİYYAT SİYAHISI:**

*1. Риекстиня В. Э., Риекстиньш И. Р.* (1990) Клематисы. — Л.: Агропромиздат Ленингр. отд-ние. — 287 с. — 50 000 экз. — ISBN 5-10-000157-7.

2. *Raymond J. Evison*. (2007) Clematis For Small Spaces. — Timber Press. — ISBN 978-0881928518

*3. John Howells*, M.D. (2005) Clematis The Montanas. — Garden Art Press. — ISBN 1-870673-51-4

4. T. S. Məmmədov. (2018) Azərbaycan dendroflorası IV cild, Bakı, Elm nəşriyyatı, səh.369.

5. T. S. Məmmədov. (2002) Abşeronda yaşıllaşdırmada istifadə olunan bəzi ağac və kol bitkilərinin bioekoloji xüsusiyyətləri. Bakı, Elm nəşriyyatı, səh.186.

# *HYDRANGEA MACROPHYLLA* (THUNB.) SER NÖVÜNDƏ XLOROZ XƏSTƏLİYİ VƏ MÜBARİZƏ TƏDBİRLƏRİ

**SALAHOVA ELNARƏ**

Dendrologiya İnstitutu
"Ağac-kolların introduksiyası və iqlimləşdirilməsi" laboratoriyası
*Salahova.elnara@bk.ru*
BAKI, AZƏRBAYCAN

**XÜLASƏ**

Müasir dövrdə yaşayış və istehsalat binalarının xarici və daxili interyerlərinin yaşıllaşdırılması üçün seçilən bitkilər özündə dekorativ keyfiyyətlərlə yanaşı ətraf mühitə sağlamlaşdırıcı təsir göstərməli və bədii memarlıq elementlərinin bir hissəsinə çevrilməlidir. Bu məqsədlə müxtəlif növ bitkilərin introduksiyası həyata keçirilir. İriyarpaq hortenziya Şamaxı şəhərindən gətirilmiş qələmlərlə çoxaldılmışdır. Bu zaman onun yarpaqlarında xloroz xəstəliyi müşahidə edilmişdir. Torpağın pH-na təsir etməklə bu xəstəliyin qarşısı alınmışdır.

**AÇAR SÖZLƏR: dekorativ, hortenziya, xloroz**

**GİRİŞ**

İriyarpaq hortenziya - *Hydrangea macrophylla* (Thunb.) Ser növü *Hydrangae* cinsinə *Hydrangeaceae* fəsiləsinə aiddir. İriyarpaq hortenziya -hündürlüyü 1-2 m, düz qalxan budaqlara malik koldur. Təbii şəraitdə hündürlüyü 3-4 m-ə çatır. Yarpaqları sadə, yumurtavari və parlaq yaşıl, uzunluğu 8-14 sm, kənarları dişlidir. Çiçəkləri iri, çəhrayı, bəzən mavi və ağ rəngdə olub, enli, qalxanvari çiçək qrupunda toplanır. Çiçəklər diametri 10-15 sm-lik qalxanda toplanır, kənarlarında fertillik qabiliyyəti olmayan-steril çiçəklərin diametri isə 3 sm-ə çatır. Mədəni şəraitdə çiçəklərin diametri 20 sm-ə qədər çatır. Kasayarpaqları iri, yaşımtıl, tədricən ağ, çəhrayı və ya mavi rəngdə olur.

Meyvəsi 2-3 bölümlü, çoxsaylı xırda tox umları olan qutucuqdur. Yazdan yayın ortasına qədər 18-20 C-də toxumlarla, zoğlarla və kolun bölünməsi ilə çoxaldılır. Tədqiqatın məqsədi torpağın pH dərəcəsinin İriyarpaq hortenziya bitkisinin inkişafına təsirinin araşdırılması və xloroz xəstəliyinin qarşısının alınmasıdır.

**TƏDQİQAT METODU**

Vegetativ çoxalma zamanı D.İ.Komissarov (Komissarov, 1964), R.X.Turetskayanın (Turetskaya, 1962), L.S.Plotnikova və T.V.Xromovanın (Plotnikova və Xromova, 1981), metodikalarına istinad edilmişdir. Tədqiqatda yaşlı nüsxələr və oduncaqlaşmış qələmlərdən istifadə olunmuşdur. Palintest firmasının eco Testr pH 2 aparatı vasitəsilə torpağın pH-ı təyin edilmişdir.

İriyarpaq hortenziya Şamaxı şəhərindən gətirilmiş qələmlərlə çoxaldılmışdır. Vegetativ yolla-kolun bölünməsi və yaşıl qələmlər vasitəsilə asanlıqla çoxalır. Qələmlər sentyabr ayında bitkinin üst hissəsində formalaşmış budaqlardan götürülür. Həmin budaqları1 buğumarası 1 qələm olaraq götürülür. Üst hissə düz, alt kəsik isə çəpəki kəsilmişdir. Qələm üzərində olan yarpaqların çox hissəsi kəsilmiş azca yarpaq saxlanılmışdır. Yarpağın az saxlanmasında məqsəd qələmin onu yetəri qədər su və qidalı maddələrlə təmin etmək qabiliyyətinin hələki zəif olmasıdır. Həmçinin azca yarpaq fotosintez prosesinin həyata keçirilməsini təmin edir. Qaba su töküb üzərinə kornevin maddəsi əlavə edirik. Qələmlər yarpaqlara qədər həmin məhlulda 5 saatdan 1 sutkaya qədər saxlaya bilərik. Torpaq zəif və orta turş (pH 5,1-5,5) olmalıdır. Torpağın tərkibi yarpaq çürüntüsü, meşə torpağı (çəmən torpağı), torf və qum 1:1:1:1 nisbətində olmalıdır. Torpağa fungisitlərdən fitosporin əlavə edirik ki, göbələklər olmasın. Fitosporin suda həll edilir, sonra torpaq həmin məhlul ilə sulanır. 1 saatdan sonra qələmlər dibi deşik olan konteynere köçürülür və üzəri sellofan ilə bağlanır ki, qışın şaxtaları təsir etməsin (Məmmədov, 2014) .

Mədəni şəraitdə oranjereyada və ya otaq şəraitində vegetasiyanın sonunda yarpaqları tökən zaman budaqların qısa kəsmək lazımdır. Qışda və ya bitkinin sakitlik dövründə onu sərin lakin şaxta olmayan yerdə (+50 C) şəraitdə saxlamaq lazımdır. Qışın sonlarında daha isti və işıqlı yerə aparmaq lazımdır, ancaq birbaşa günəş şüaları düşməməlidir. Bu növü konteynrdə saxlamaq lazımdır ki, ancaq yay fəslində açıq havada saxlamaq olar (Kuklina, 2006).

İriyarpaq hortenziya işıqsevən bitkidir, azca kölgəlik yerdə də əkmək olar. İşıq az düşdükdə çiçəklər zəif inkişaf edir. Qələvi torpaqda hortenziya xloroz xəstəliyindən əziyyət çəkir. Yerüstü bitki toxumalarında xlorofil sintezinin pozulması xloroz adlanır. Xloroz xəstəliyi zamanı bitkinin yarpaqları saralır. Yarpaqların saralması xlorofilin çatışmazlığını və ya məhv olduğunu göstərir. Xloroz xəstəliyi zamanı yarpaqlarda xlorofil sintezi pozulur. Əgər kiçik yarpaqlarda bu proses baş verirsə bu dəmir elementinin, iri yarpaqlarda baş verirsə bu manqan elementinin çatmamasının göstəricisidir. Xlorozun baş vermə səbəbləri bunlardır: cod su, qələvi torpaq, mineral maddələrin çatmaması, temperaturun aşağı olması, çoxlu peyin verilməsi.



**Şəkil 1.** *Hydrangea macrophylla* (Thunb.) Ser növündə xloroz xəstəliyi

Yaşıl piqment bitkini qida ilə təmin edən fotosintez prosesində iştirak edir. Eyni zamanda, hüceyrələr vacib mikroelementlərini qəbul etməyi dayandırır: manqan, dəmir, maqnezium, sink. Bitki

orqanizmi ac qalır. Hidrangealarda dəmirin udulmasının pozulması ilə əlaqəli qeyri-infeksion xloroz hallarına daha çox rast gəlinir. Böyük yarpaqlı növlər dəmir çatışmazlığına ən tez reaksiya verir - günəşli isti havalarda yarpaqlar quruyur. Bu solğunluq fizioloji adlanır, təhlükəli deyil. Turgor suvarmadan sonra bərpa olunur, lakin aşağı salınmış yarpaqlar nəzərə alınmalı olan bir siqnaldır.

Fizioloji problemlərin əsas göstəricisini görmək asandır - yarpaq səthi sarıya çevrilməyə başlayır. İlk olaraq apikal yarpaqlar məruz qalır: yarpaq səthinin toxumaları parlaqlaşır və damarlar parlaq, nəzərə çarpır, yarpaqların kənarları bükülür. Solğun gənc yarpaqlar quruyur, tökülür və nəticədə bitki ölə bilər. Paniculata və böyük yarpaqlı növlər torpağın turşuluğuna kəskin reaksiya verir və xüsusi diqqət tələb edir.

Hydrangeas 5.1-5.5 torpaq pH lazımdır. Köklər qələvi və ya neytral substratdan dəmiri udmaq iqtidarında deyil. Xəstəliyin səbəbləri aşağıdakılardır: torpağın uyğun olmayan turşuluğu, cod su ilə suvarma, aqrotexniki qaydaların pozulması, kifayət qədər rütubətin olmaması, torpağın əhənglənməsi, kül və ya dolomit unu ilə üst sarğı.

Dəmir xlorozunda dəmir xelatı vermək məsləhətdir. Ferovit, dəmir xelatı və anti xloroz preparatların vermək olar.Bu preparatlar olmayanda özümüz hazırlaya bilərik.

1litr suyu əgər coddursa qaynadırıq. Su yumşaq və otaq temepraturunda olmalıdır. 4 qram və ya 1,5 ç/q limon turşusu suya əlavə edilib yaxşı qarışdırılır. 2,5 qram dəmir kuporosu əlavə edib qarışdırırıq. 1 bitkiyə 5 l bu qarışıqdan istifadə etmək lazımdır.



**Şəkil 2.** *Hydrangea macrophylla* (Thunb.) Ser növünün çiçəkləmə mərhələsi

Profilaktika məqsədilə hortenziyanın xloroz xəstəliyinə tutulmaması üçün 10 gündən bir tərkibində dəmir olan duzlu su ilə suvarmaq lazımdır.

Iriyarpaq hortenziya sürətli inkişaf edir, istisevən bitkidir, torpağa və rütubətə tələbkardır, əhəngli torpaqlara dözmür. Az kölgəyə davam gətirir, az şaxtayadavamlıdır ($-18^0$ C).

Bağ hortenziyası çiçəklər keçən ilki budaqlarda əmələ gəlir. Burda əsas məsələ həmin budaqları qoruyub saxlamaq lazımdır ki, onları şaxta vurmasın ki, növbəti il onlarda çiçək əmələ gəlsin.

İriyarpaq hortenziya kolları payızda yetəri qədər rütubət alarsa qış şaxtalarını yaxşı keçirir. İriyarpaq hortenziyanın çiçək və yarpaqları hətta zəif gecə şaxtalarında məhv ola bilir. Ona görə oktyabr ayının ikinci yarısından örtülməlidir. Qısamüddətli şaxtalardan qorunması üçün kolların üstü lutrasil və 2 qat parnik klyonkası il örtülməlidir.

**NƏTICƏ**

Aparılan tədqiqat nəticəsində müəyyən edilmişdir ki, iriyarpaq hortenziya vegetativ yolla- kolun bölünməsi və yaşıl qələmlər vasitəsilə asanlıqla çoxalır. Qələvi torpaqda hortenziya xloroz xəstəliyindən əziyyət çəkir. Xlorozun baş vermə səbəbləri bunlardır: cod su, qələvi torpaq, mineral maddələrin çatmaması, temperaturun aşağı olması, çoxlu peyin verilməsi.

Dəmir xlorozunda dəmir xelatı vermək məsləhətdir. Profilaktika məqsədilə hortenziyanın xloroz xəstəliyinə tutulmaması üçün 10 gündən bir tərkibində dəmir olan duzlu su ilə suvarmaq lazımdır.

Tədqiqat zamanı həmçinin müəyyən edilmişdir ki, iriyarpaq hortenziya sürətli inkişaf edir, istisevən bitkidir, torpağa və rütubətə tələbkardır, əhəngli torpaqlara dözmür. Az kölgəyə davam gətirir, az şaxtayadavamlıdır ($-18^0$ C).

**ƏDƏBIYYAT SIYAHISI**

T.Məmmədov, E. İsgəndər, T.Talıbov. (2014). Azərbaycanın nadir ağac və kol bitkiləri. Bakı: Elm, 380 səh.

Комиссаров Д.А. (1964). Биологические основы размножения древесных растений черенками. Д.А. Комиссаров -Москва, Лесная пром-сть, 292 с.

А. Куклина, И. Сокольский. (2006). Роскошная гортензия. Журнал «Наука и Жизнь». № 11.

Плотникова Л.С. (1981). Размножение древесных растений черенками / Л.С. Плотникова, Т.В. Хромова –Москва: Наука, 56 с.

Турецкая Р.Х. (1962). Инструкция по применению стимуляторов роста при вегетативном размножении растений / Р.Х.Турецкая. -Москва: Изд-во АН СССР, 71 с.

# AKTİNOMİSETLƏRİN KULTURALAR KOLLEKSİYASINDA SAXLANMA METODLARININ 6 VƏ 10 AY MÜDDƏTİNDƏ MÜQAYİSƏLİ ÖYRƏNİLMƏSİ

**NİGAR ZAKİROVA**

*Bakı Dövlət Universiteti*
Biologiya fakültəsi/ Təbiət elmləri
*nigarshahbazi@yahoo.com*
Bakı, Azərbaycan

**XÜLASƏ**

Təqdim olunan elmi işdə Bakı Dövlət Universitetinin Molekulyar biologiya və biotexnologiyalar kafedrasının kolleksiyasından götürülmüş 15 aktinomiset ştamının həyat qabiliyyəti öyrənilmişdir. Ştamların həyat qabiliyyəti 2 metodla- dövrü əkilmə ilə aqarlı qidalı mühitdə və "ac" mühitdə saxlanılma metodu ilə öyrənilmişdir. Birinci metod ilə 6 saxlanıldıqdan sonra aktinomisetlərdə tez böyümə (3-5 gün ərzində) müşahidə edilmişdir. Kulturaların sağ qalma dərəcəsi 6 ay saxladıqdan sonra 86- 98%, 10 ay saxladıqdan sonra isə 83- 95% intervalında olmuşdur. İkinci metodla 6 və 10 ay ərzində saxlanma zamanı kulturaların həyat qabiliyyətində azalma müşahidə olunmuşdur, lakin Az6 ştamının hüceyrələrinin sağ qalma qabiliyyəti həm 6, həm də 10 ay ərzində stabil qalmışdır. Kulturaların sağ qalma dərəcəsi 6 və 10 ay ərzində saxladıqdan sonra 78-89%, 10 ay saxladıqdan sonra isə 70-86% intervalında olmuşdur. Hər iki metod ilə sağ qalma dərəcəsini müqayisə etdikdə məlum olur ki, aktinomiset kulturaları Gauze qidalı mühitində daha yaxşı saxlanılır, çünki aktinomisetlərin inkişafı üçün mühitdə olan lazımi maddələr kulturaların stabil saxlanmasını təmin edir.

**SUMMARY**

The survivability of 15 strains of actinomycetes cultures from the collection of the Molecular biology and biotechnologies department of Baku State University after storage by periodic subculture on agar nutrient medium and "starvation" medium was studied. During storage by first method for 6 and 10 months of actinomycetes has maintained rapid growth ( within 3-5 days) , although some of them have observed a reduction in cell size. The percentage of culture survival after 6 months of preserving was about 88-98% and 83-95% after 10 months. During storage, by second method for 6 and 10 months we observed significantly decrease of survivability with the exception of Az6 strain , which had retain a high percentage of cell survival for both methods of storage. Percent survival actinomycete cultures after 6 months of storage was within 78-89 %, and after 10 months storage was within 70-86 %. The comparison of tüo methods shows that the quantity of viability of cells is higher

than other method when keeping cultures in agar containing nutrient medium with periodic seeding method.

***AÇAR SÖZLƏR:* 1-*aktinomisetlər, 2-mikroorqanizmlərin saxlanması, 3-həyat qabiliyyəti, 4-kulturalar kolleksiyası.***

## GİRİŞ

Aktinomisetlərin həyat qabiliyyətinin və əsas xüsusiyyətlərinin uzun müddət ərzində saxlanılması kolleksiya işlərinin başlıca məsələlərindən biridir. Bütün saxlama metodları üçün ümumi olan cəhət metabolik proseslərin tormozlanmasından ibarətdir. Mikroorqanizmlərin bütün qrupları üçün uyğun olan ümumi saxlanma metodları hələ ki, məlum deyil. Ona görə də müxtəlif mikroorqanizm kolleksiyasını fərqli üsullarla saxlayırlar. Bundan başqa mikroorqanizmin itməməsi üçün hər bir ştam bir yox, bir neçə fərqli metodlarla saxlanılır (Аркадьева, 2000).

**Tədqiqat işinin aktuallığı** ondan ibarətdir ki, aktinomisetlərdən hal-hazırda antibiotiklərin və bioloji aktiv maddələrin alınması üçün geniş istifadə olunur. Bu məqsədlə aktinomisetlərin həyat qabiliyyətinin və əsas xüsusiyyətlərinin uzun müddət ərzində saxlanılması üçün daha əlverişli metodlardan istifadə etmək lazımdır. Bu kulturaların dövri əkilmə metodu ilə aqarlı qidalı mühitdə 4-6°C temperaturda saxlanılması tövsiyə olunur.

Aktinomisetlərin saxlanılması üçün müxtəlif metodlar mövcuddur (Morgan, Herman, Vesey, 2006). Onlardan əksəriyyəti konservasiyaya - anabioz halında saxlamağa əsaslanır. Anabioz orqanizmin elə halıdır ki bu zaman həyati proseslər o dərəcədə zəifləyir ki, onları aşkar eləmək praktik cəhətdən mümkün olmur. Bundan başqa praktikada aktinomisetlərin həyati proseslərini dayandırmadan başqa üsullarla da saxlamaq olar (Куплетская, Нетрусов 2011). Ümumiyyətlə, mikroorqanizmlərin saxlanılması üsulları göstərilən faktorlara əsaslanır: 1) ştamın həyat qabiliyyəti, 2) onun genetik stabilliyi və 3) sonrakı istifadənin rahatlığı (Canovas, Iborra, 2003). Aktinomisetlərin saxlanmasının daha geniş istifadə olunan üsulları aqarlı qidalı mühitə dövri əkilmə – subkulturasiya, qurutma (10-12 % nəmliyə qədər), mineral yağda saxlama, liofilizasiya, qumda, torpaqda saxlama, vakuum altında qurudulma (L-qurudulma), həmçinin dondurulmuş halda, fizioloji və 10%-li saxaroza məhlulunda, spor halında, maye azotda, çox aşağı və mənfi temperaturlarda saxlanmadır (Филиппова, 2012).

Dövri əkilmə metodu ilə aqarlı qidalı mühitdə saxlamaq laboratoriya praktikasında geniş istifadə olunur, baxmayaraq ki, bu metod iqtisadi cəhətdən o qədər də səmərəli deyil. Bu, bir tərəfdən, metodun sadəliyi ilə, digər tərəfdən, kulturaların konservasiyası üçün xüsusi cihazların istifadə olunmaması ilə izah olunur. Bu və ya digər ştamın xüsusiyyətlərindən asılı olaraq kulturaların dəyişkənliyini aşağı salmaq üçün tez-tez müxtəlif sintetik və ya təbii qidalı mühitlər götürməklə yanaşı, həmçinin bu mühitin ayrı-ayrı inqrediyentlərini seçmək lazım gəlir.

**Tədqiqatın məqsəd və vəzifələri** kulturalar kolleksiyasından götürülmüş aktinomiset ştamlarının 6 və 10 ay ərzində saxlanma metodlarının müqayisəli öyrənilməsi olmuşdur.

**Tədqiqatın obyekti** Bakı Dövlət Universitetinin Molekulyar biologiya və biotexnologiyalar kafedrasının kulturalar kolleksiyasından götürülmüş 15 aktinomiset ştamı olmuşdur. Bu ştamlar Azərbaycanın müxtəlif rayonlarının meyvə ağaclarından və torpaqlarından ayrılmışdır: S (Salyan rayonu) 5, 9, 10, 14; U (Ucar rayonu) 4; Ən (əncir) 7 və 12; C (Cəlilabad rayonu) 21 və 24; Əz (əzgil) 1 və 6; L (Lənkəran rayonu) 5 və 8; M (Masallı rayonu) 1 və 3.

Aktinomisetlər 6 və 10 ay ərzində 2 metodla 4-6°C temperaturda saxlanılmışdır:

a) Dövri əkilmə metodu ilə aqarlı qidalı mühitdə saxlama.
b) "Ac" aqar mühitində saxlama.

## TƏDQİQAT METODU

**Dövri əkilmə metodu ilə aqarlı qidalı mühitdə saxlama** zamanı ştamlar həm 6, həm də 10 ay müddətinə sınaq şüşələrinə əkilərək 4-6°C temperaturda həyat qabiliyyətini öyrənmək məqsədilə saxlanılmışdır. Aktinomisetlər əkilmiş materialdan təzə aqarlı qidalı mühitə 26-28°C temperaturda 1 həftə ərzində becərmə məqsədilə köçürmə aparılmışdır. Bu məqsədlə aşağıda göstərilən tərkibə malik Qauze qidalı mühiti istifadə edilmiş və 30 dəq. ərzində 1 atm. təzyiqdə 117°C temperaturda sterilizasiya edilmişdir. qr/l: nişasta – 20,0; $K_2HPO_4$ – 0,5; $MgSO_4$ – 0,5; $KNO_3$ – 1,0; NaCl – 0,5; $FeSO_4$ – 0,01; Aqar-aqar – 30,0; pH – 7,2-7,4 (Takahashi, Nakashima, 2018).

**“Ac” aqar mühitində saxlama** zamanı ayrılmış materialdan “ac” aqar mühitinə 1 həftə ərzində 26-28°C temperaturda əkmə aparılmışdır. “Ac” aqar mühitinin tərkibinə daxildir: 1 l su, 15 q aqar-aqar, ph-7,0. Qidalı mühit 117°C temperaturda 30 dəq. ərzində sterilizasiya edilmişdir (Теппер, Шильникова,Перевезева, 2005). Becərilmiş ştamlar 4-6°C temperaturda 6 və 10 ay müddətində soyuducuda saxlanmışdır.

Mikroorqanizmlərin sağ qalma dərəcəsi həyat qabiliyyətini saxlamış hüceyrələrin sayı ilə ilkin (saxlanmadan əvvəlki) hüceyrələrin sayının münasibətinə əsasən təyin edilmişdir. Belə ki, həyat qabiliyyətini saxlamış hüceyrələrin sayını 100 %-ə vurub ilkin mikroorqanizmlərin sayına nisbəti hesablanmışdır. Kontrol kimi 3 ay ərzində kolleksiyada saxlanılan kulturalar istifadə edilmişdir. Tədqiq olunan 1 ml Qauze mühitindəki aktinomiset hüceyrələrinin miqdarı formul (1)- ə əsasən hesablanır:

$$M = \frac{a \cdot 10^n}{V} (1)$$

Burada: M- 1 ml-dəki hüceyrələrin miqdarı; a- kaloniyanın orta ölçüsü; n- durulaşdırılma sayı; 10- durulaşdırma koofisenti; V- əkmə aparılan suspenziyanın həcmi.

Bütün təcrübələr 4 təkrarda aparılmış və statistik işlənmişdir (Плохинский , 1998).

**NƏTİCƏ**

Aktinomiset kulturalarının kolleksiyada saxlanma prosesində hansı dəyişikliklərə uğraması öyrənilmişdir. Müəyyən edilmişdir ki, həm 6, həm də 10 ay ərzində dövri əkilmə metodu ilə aqarlı qidalı mühitdə saxlama prosesində aktinomisetlərin tez yetişməsi (3-5 sutka) baş verir. İnkubasiya prosesində 6 və 10 ay keçdikdən sonra kulturaların həyat qabiliyyəti eyni dərəcədə saxlanmışdır, baxmayaraq ki, bəzi ştamların hüceyrələrinin ölçüsü müəyyən qədər kiçilmişdir. Belə ki, əsasən 3 ştamın - Əz1, Əz6 və U4 hüceyrələrinin ölçüsündə kiçilmə müşahidə olunmuşdur (Şəkil 1.)



**a**



**b**

**Şəkil 1.** Əz1 aktinomiset ştamının kaloniyası: a – kontrol; b - dövri əkilmə metodu ilə aqarlı qidalı mühitdə 10 ay saxladıqdan sonra

İnkişaf etmiş aktinomiset koloniyalarının miqdarını kontrolla müqayisə edərək kulturaların sağ qalma dərəcəsini müəyyən etmək mümkün olmuşdur. Cədvəl 1-dən göründüyü kimi dövrü əkilmə metodu ilə 6 ay saxlandıqdan sonra kulturaların həyat qabiliyyətində kontrolla müqayisədə cüzi miqdarda (1-1,2 dəfə) azalma müşahidə olunmuşdur. Ən çox azalma C24 ştamında – 1,14 dəfə, ən az azalma isə Əz1 ştamında – 1,02 dəfə müəyyən edilmişdir. Əz6, L8 və U4 ştamlarında kontrolla müqayisədə ən yüksək sağ qalma dərəcəsi - 98%, C24 ştamının sağ qalma dərəcəsi isə - 88% olmuşdur. Digər ştamların hüceyrələrinin sağ qalma dərəcəsi 91-97% intervalında dəyişmişdir.

"Ac" aqar mühitində saxlama zamanı aktinomiset hüceyrələrinin həyat qabiliyyəti 6 ay saxlamadan sonra kontrolla müqayisədə cüzi dərəcədə (1-1,3 dəfə) dəyişmişdir. Ən çox azalma (1,3 dəfə) C24 ştamında, ən az azalma (1,08 dəfə) isə Əz6 və S10 ştamlarında müşahidə olunmuşdur. Deməli, "ac" aqar mühitində 6 ay ərzində saxladıqdan sonra aktinomiset hüceyrələrinin sağ qalma dərəcəsi Əz6, S10 və U4 ştamlarında 90-92%, C24, L5, M1 və M3 ştamlarında isə 75-78% olmuşdur. Tədqiq olunan digər aktinomiset ştamlarının sağ qalma dərəcəsi isə kontrolla müqayisədə 82-89% intervalında dəyişmişdir (*Cədvəl 1.)*

***Cədvəl 1.*** *Aktinomisetlərin kulturalar kolleksiyasında 6 ay saxlamadan sonra həyat qabiliyyətinin dəyişməsi*

| Ştamların №-si | Hüceyrələrin sayı, KƏV/ml $10^5$ | | |
|---|---|---|---|
| | Kontrol | Dövri əkilmə metodu ilə saxlama | "Ac"aqar mühitində saxlama |
| 1. Əz1 | 180±16 | 175±15 | 150±14 |
| 2. Əz6 | 246±22 | 240±22 | 226±21 |
| 3. Ən7 | 90±7 | 85±8 | 80±6 |
| 4. Ən12 | 65±6 | 60±5 | 57±4 |
| 5. S5 | 250±24 | 240±22 | 220±20 |
| 6. S9 | 190±18 | 180±16 | 160±14 |
| 7. S10 | 206±16 | 200±18 | 190±18 |
| 8. S14 | 157±15 | 150±12 | 140±13 |
| 9. C21 | 85±8 | 80±6 | 75±4 |
| 10.C24 | 80±6 | 70±5 | 60±5 |
| 11.L5 | 115±9 | 105±10 | 90±8 |
| 12. L8 | 290±26 | 285±26 | 250±22 |
| 13.U4 | 300±28 | 295±27 | 270±25 |
| 14.M1 | 140±13 | 130±12 | 110±11 |
| 15.M3 | 115±10 | 110±10 | 90±7 |

Dövrü əkilmə metodu ilə 10 ay saxladıqdan sonra aktinomiset hüceyrələrinin həyat qabiliyyətində kontrolla müqayisədə 1,1-1,2 dəfə azalma müşahidə edilmişdir. Ən çox azalma (1,2 dəfə) C24, M3 və S14 ştamlarında, ən az azalma isə (1,05 dəfə) S10 ştamında müşahidə edilmişdir. Deməli, sağ qalma dərəcəsi S10 ştamının hüceyrələrində – 95%, C24 ştamının hüceyrələrində isə 81% olmuşdur. Digər aktinomiset ştamlarının sağ qalma dərəcəsi 83-93% intervalında dəyişmişdir (*Cədvəl 2.)*

"Ac" aqar mühitində saxlama zamanı aktinomiset hüceyrələrinin həyat qabiliyyəti 10 aydan sonra kontrolla müqayisədə 1,1-1,4 dəfə azalmışdır. Belə ki, ən az azalma (1,1 dəfə) Əz6 ştamında, ən çox azalma isə (1,4 dəfə) M1 və L5 ştamlarında müşahidə edilmişdir. Deməli, aktinomiset kulturalarının sağ qalma dərəcəsi 10 aydan sonra 70-86% intervalında dəyişmişdir. Belə ki, kontrolla müqayisədə hüceyrələrin sağ qalma dərəcəsi C24 ştamında - 63%, L5 və M1 ştamlarında, müvafiq olaraq 70% və 71%, Əz6 ştamında - 89%, U4 ştamında isə 88% olmuşdur. Tədqiq olunan digər aktinomiset ştamlarının sağ qalma dərəcəsi isə 72-86% arasında dəyişmişdir.

***Cədvəl 2.*** *Aktinomisetlərin kulturalar kolleksiyasında 10 ay saxlamadan sonra həyat qabiliyyətinin dəyişməsi*

| Ştamlar № | Hüceyrələrin sayı, KƏV/ml $10^5$ | | |
|---|---|---|---|
| | Kontrol | Dövri əkilmə metodu ilə saxlama | "Ac" aqar mühitində saxlama |
| 1. Əz1 | 180±16 | 155±14 | 150±12 |
| 2. Əz6 | 246±22 | 230± 21 | 220±21 |
| 3. Ən7 | 90±7 | 80±6 | 65±6 |
| 4. Ən12 | 65±6 | 55±5 | 50±4 |
| 5. S5 | 250±24 | 230±21 | 215±20 |
| 6. S9 | 190±18 | 170±16 | 155±14 |
| 7. S10 | 206±16 | 195 | 170±16 |
| 8. S14 | 157±15 | 130±12 | 135±12 |
| 9. C21 | 85±8 | 77±7 | 70±5 |
| 10. C24 | 80 ±6 | 65±6 | 50±4 |
| 11. L5 | 115 ±9 | 100±10 | 80±6 |
| 12. L8 | 290 ±26 | 270±26 | 245±23 |
| 13. U4 | 300 ±28 | 275±27 | 265±25 |
| 14. M1 | 140 ±13 | 120±11 | 100±10 |
| 15. M3 | 115 ±10 | 95±9 | 85±8 |

1. Aldığımız nəticələrə əsasən müəyyən olunmuşdur ki, aktinomiset kulturalarını müxtəlif metodlarla saxlama zamanı onların içərisində ən əlverişlisi dövri əkilmə metodu ilə aqarlı qidalı mühitdə saxlamadır. Bu nəticələr ədəbiyyatda mövcüd olan məlumatlara uyğundur (Аркадьева, 2000).

2. Hər iki metodun müqayisəsi göstərdi ki, dövri əkilmə metodu ilə aqarlı qidalı mühitdə kulturaları saxlayarkən hüceyrələrin sağ qalma dərəcəsi digər metodla müqayisədə daha yüksək olur. Tədqiqat zamanı məlum oldu ki, verilmiş kulturalardan "ac" aqar mühitində saxlanmaya daha davamlı Əz6 ştamıdır.

**ƏDƏBİYYAT**

1. Аркадьева З.А. (2000). Коллекция микроорганизмов кафедры микробиологии МГУ. Материалы международной конференции. Проблемы экологии и физиологии микроорганизмов, к 100-летию со дня рождения профессора Е.Е.Успенского: М., 33-37.

2. Yōko Takahashi* and Takuji Nakashima. (2018). Actinomycetes, an Inexhaustible Source of Naturally Occurring Antibiotics (Basel), Jun; 7(2): 36-45.

3. Куплетская М.Б., Нетрусов А.И. (2011). Жизнеспособность лиофилизированных микроорганизмов после 50 лет хранения. Микробиология,Т.80, №6, с.842-846.

4. Плохинский Н.А. (1998). Биометрия. М.: МГУ, 147-150 .

5. Теппер Е.З., Шильникова В.К., Перевезева Г.И. (2005). Практикум по микробиологии. М.: Дрофа, 220- 256.

6. Филиппова, С.Н. (2012). Многолетнее хранение коллекционных культур актинобактерий, Микробиология,, №5.том 81, 682-690.

7. Canovas M., Iborra J. (2003). Culture collections and biochemistry. International Microbiology, V.6, № 2, 105-112.

8. Morgan C.A, Herman N.F, White P.A., Vesey G.I (2006). Preservation of microorganisms by dying; A review, Journal of Microbiological Methods, V.l66, Is.2, 183-193.

# YENİ YARADILMIŞ SELEKSİYA-DAMAZLIQ ARI QRUPUNUN ANA ARILARININ GÖSTƏRİCİLƏRİ

**VÜSALƏ ƏLİYEVA**

Heyvandarlıq Elmi Tədqiqat İnstitutu
Arıçılıq Mərkəzi
*vusale25@inbox.ru*
GÖYGÖL, AZƏRBAYCAN

**XÜLASƏ**

Azərbaycan Respublikasında yerli bal arısı genofondunu Bozdağ Qafqaz arı cinsinin Qabaqtəpə və Qonaqkənd arı populyasiyaları, Sarı Qafqaz arı cinsinin Azərbaycan, Talış və Naxçıvan arı populyasiyaları təşkil edir. Bu populyasiyalar arasında Kiçik Qafqazın dağlıq və dağətəyi bölgəsində yayılan Qabaqtəpə arı populyasiyası (populatio Wabaqkendika Sultanov) xüsusulə fərqlənir. Sultanov R.L və Əliyeva V.R apardıqları tədqiqat işləri göstərir ki, respublikamızda Bozdağ Qafqaz arı cinsinin (Apis mellifera L. caucasica Worb.) Qabaqtəpə populyasiyasının (populatio Wabaqkendik Sultanov) arılarının keyfiyyət göstəriciləri son illər aşağı düşmüşdür. Belə ki, arıların genefondu nəzərə alınmadan arı ailələrinin bir bölgədən digər bölgələrə köçürülməsi, müxtəlif cinsə məxsus arıların bir-biri ilə təbii olaraq cütləşməsi nəticəsində Qabaqtəpə arı populyasiyasının arılarının keyfiyyət göstəricilərinə mənfi təsirlər etmişdir. Bu populyasiyaya məxsus arı ailələrinin keyfiyyət göstəricilərinin qorunması ilə əlaqədar tədqiqat işlərinin aparılmaması səbəbi ilə də arıların genetik və irsi xüsusiyyətlərində nəzərəçarpacaq dəyişikliklər baş vermişdir. Ona görə də Kiçik Qafqaz bölgəsində Bozdağ Qafqaz arı cinsinin (*Apis mellifera L. caucasica Gorb.*) Qabaqtəpə arı populyasiyasının (*populatio Wabaqkendik Sultanov*) məhsuldar seleksiya damazlıq qrupunun yaradılması və reproduksiyasi məqsədilə tədqiqat işi aparılmışdır. Təcrübə qruplarının formalaşdırılması tədqiqatın mövzusundan və istiqamətindən asılı olaraq normal arı ailələrindən ibarət, mənşəyinə, vəziyyətinə, yuvada olan arıların, yemin, şanın, arı artımının miqdarına görə oxşar təcrübə qrupları yaradılmışdır. Qabaqtəpə arılarında seleksiya-damazlıq işi aparmaqla və süni seçmə vasitəsi ilə arılarının uzun xortumluluq, yüksək nektar toplamaq, az beçə vermək, sakit davranış və s. kimi yaxşı əlamətləri formalaşdırmaqla öz yüksək irsi məhsuldarlıq qabiliyyətini gələcək nəslə keçirə bilən damazlıq arı qrupu yaradılmışdır.

**ABSTRACT**

The genepool of the Azerbaijan Republic consist of and Kabakhtapa and Gonaqkend bee populations of the Gray Mountain Caucasian bee genus. Yellow Caucasian bee genus are consist of Azerbaijan, Talish and Nakhchivan bee populations. Sultanov R.L. and Aliyeva V.R.'s research shows that the quality indicators of the bees of the Gray Mountain Caucasian bee genus (Apis mellifera L. caucasica Worb.) of the Kabakhtapa population (populatio Wabagkendik Sultanov) in our republic have decreased in recent years. The transfer of bee families from one region to another without considering the genepool of bees as a result of belonging to different genus naturally mating with each other, had negative effects on the quality indicators of the bees of Kabakhtapa bee population. Therefore, a research work was carried out for the purpose of creation and reproduction of a productive breeding group of Kabakhtapa bee population of the Gray Mountain Caucasian bee genus (Apis mellifera L. caucasica Gorb.) in the Lesser Caucasus region. Significant changes in the genetic and hereditary characteristics of bees have occurred due to the lack of research related to the protection of the quality indicators of the bee families belonging to this population. Formation of experimental groups, depending on the topic and direction of the research, were created similar experimental groups, consisting of normal bee families, according to their origin, condition, amount of bees in the hive, feed, pollen, and bee growth. By carrying out selection-breeding work a breeding bees group has been created by forming good traits such as long proboscis, high nectar collection, quiet behavior, etc. good signs and to move that their high genetic fertility ability to the next generation.

**AÇAR SÖZLƏR:** ana arı, indeks, seleksiya, genotipik xüsusiyyətlər, bal məhsuldarlığı**.**

**KEY WORDS:** queen, index, selection, genotypic features, honey production.

## GIRIŞ

Azərbaycan Respublikasında arıçılıq ən cəlbedici və perspektivli fəaliyyət sahələrindən biridir. Azərbaycan Respublikasının ərazisi arıçılığın inkişafı üçün əlverişli təbii-iqlim şəraitinə və zəngin bal verən bitki örtüyünə malikdir. Arıçılıq da öz növbəsində iqtisadi cəhətdən yüksək gəlirli fəaliyyət sahəsi, əhalinin sağlamlığını qoruyan ərzaq və dərman preparatları mənbəyi, eləcə də kənd təsərrüfatının digər sahələrində məhsuldarlığın artırılmasına mühüm töhfə verən ekoloji amildir (S.V. Svistunov, A. G. Koshchaev, N. N. Bondarenko). Lakin digər kənd təsərrüfatı sahələrində olduğu kimi burada da müxtəlif problemlər vardır. Kiçik Qafqaz bölgəsində Bozdağ Qafqaz arı cinsinin, Qabaqtəpə arı populyasiyasının genofondunun bərpası, yaxşılaşdırılması və arı ailələrinin məhsuldarlığının yüksəldilməsi istiqamətində dövlət səviyyəsində ardıcıl və sistemli tədqiqat işlərinin aparılmaması aktual problemlərdəndir (Əliyeva V.R. 2014).

Bozdağ Qafqaz arısının (A. mellifera caucasica) vətəni Azərbaycan, Gürcüstan və Şimali Qafqaz ərazilərdir (M. Kara, E.Sezgin, A.Kara 2012). Qabaqtəpə arı populyasiyası Bozdağ Qafqaz arısının bütün müsbət xüsusiyyətlərini özündə cəmləməklə yanaşı, ondan üstün olaraq yüksək sürətlə inkişaf etmək, soyuq qışı keçirmək, küləkli iqlim şəraitinə uyğunlaşmaq, böyük floramiqrasiya göstəricisi ilə seçilmək kimi müsbət xüsusiyyətlərə malikdir. Başqa arılardan fərqli olaraq, bu qiymətli seleksiya materialı sancmaya həris deyil, beçəvermədən asan qayıdır, gün ərzində nektar ardınca uçuşa tez başlayıb, gec qurtarır. Nektar bolluğu olan rayonlarda belə digər arı cinslərindən çox bal toplayır ki, bu xüsusiyyətlər də onun yüksək məhsuldarlığını şərtləndirən əsas cəhətlərdəndir (E.Akyol, H.Yeninar, O. Kaftanoglu 2008).

Kiçik Qafqaz bölgəsində Bozdağ Qafqaz arı cinsinin, Qabaqtəpə arı populyasiyasının genofondunun bərpası və yaxşılaşdırılması üçün Heyvandarlıq Elmi-Tədqiqat İnstitutunun "Arıçılıq mərkəzində" Qabaqtəpə arı populyasiyasının arılarında süni seçmə aparmaqla yüksək məhsuldar damazlıq arı qrupunun yaradılması məqsədilə tədqiqat işi aparılmışdır.

Tədqiqat işində aşağıdakı məsələlər öyrənilmişdir.

* Bozdağ Qafqaz arı cinsinin Qabaqtəpə arı populyasiyasının arılarının son 20 il ərzində genotipik əlamətlərində və bioloji-təsərrüfat xüsusiyyətlərində baş verən dəyişikliklərini müəyyənləşdirmək;

* Qabaqtəpə arı populyasiyasının məhsuldar seleksiya-damazlıq qrupunun yaradılması məqsədilə kütləvi seçmə üsulundan (arıçıların ifadələrinə və yazılı qeydlərinə əsasən) istifadə etməklə məhsuldar arı alələrinin ilkin damazlıq qrupunun formalaşdırılması;

* Seleksiya-damazlıq məqsədilə formalaşdırılmış ilkin məhsuldar arı ailələrinin özünə məxsus genotipik və məhsuldarlıq qabiliyyətini gələcək nəslə (qız ana arılarına) ötürülməsini müəyyən etmək. Bu zaman arı ailələrində keyfiyyət və məhsuldarlıq qabiliyyətnə görə kütləvi seçmə üsulu tətbiq etməklə Qabaqtəpə arı populyasiyasının seleksiya-damazlıq qrupunun bünövrəsinin təşkili;

* Arıxanada seleksiya-damazlıq işləri ilə bərabər yerli şəraitin coğrafi mövqeyinin və yem bazarının xüsusiyyətlərini nəzərə alaraq yüksək keyfiyyətə malik damazlıq ana və erkək arıların yetişdirilməsinin müasir tələblərə uyğun texnoloji prosesi işləyib hazırlamaq;

* Qabaqtəpə arı populyasiyasının seleksiya-damazlıq qrupunun bünövrəsini təşkil edən arı ailələri üzərində fərdi seçmə və çıxdaş üsulunu tətbiq etməklə genotipik və məhsuldarlıq qabiliyyətini gələcək nəslə keçirə bilən daha məhsuldar arı ailələrindən ibarət damazlıq qrupunun yaradılması;

* Yüksək məhsuldarlıq qabiliyyətini gələcək nəslə keçirə bilən sleksiya-damazlıq qrupunun arı ailələrindən reproduksiya məqsədilə istifadə etməklə və bölgədə arı ailələrinin məhsuldarlıq qabiliyyətinin yüksəldilməsi.

Tədqiqat məqsədilə 2013-cü ilin mart ayının ikinci on günlüyündə seleksiya-damazlıq məqsədilə respublikanın qərb bölgələrində Qabaqtəpə arı populyasiyalarının arı ailələrinin yayılması ehtimal olunan arıxanalarda, yüksək damazlıq keyfiyyətinə malik arı ailələrinin axtarışı və seçilməsi məqsədilə mütəxəssislərdən ibarət ekspedisiya təşkil olunmuşdur. Tədqiqatın mövzusundan və istiqamətindən asılı olaraq normal arı ailələrindən ibarət mənşəyinə, vəziyyətinə, yuvada olan arıların, yemin, şanın, arı artımının miqdarına görə oxşar olan 30 arı ailəsi ilkin tədqiqat obyekti kimi seçilmişdir. Bu arı ailələri arıçıların məhsuldarlıq haqqında verdiyi məlumatlara, arıların xarici görünüşünə və 6 keyfiyyət göstəricisinə görə formalaşdırılmışdır. İlkin seçilmiş 30 arı ailəsi arasından ən yüksək keyfiyyət göstəricilərinə malik olan 5 arı ailəsi damazlıq seleksiya işinin aparılması məqsədilə seçilmişdir. Seçilmiş 5 arı ailəsinin arılarının xortumunun uzunluğu və qanadda qarmaqların miqdarı, böyük zəhər

vəzisinin uzunluğunun orta ədədi kəmiyyət göstəricisi və bal məhsuldarlığı digər 25 arı ailəsi ilə müqayisədə yüksək olmuşdur. Hər bir ailədən 10 yeni qız ana yetişdirilmişdir və onlardan reproduksiya məqsədilə istifadə etməklə yüksək keyfiyyətə malik damazlıq arı ailələri yaradılmışdır. Yeni yaradılmış seleksiya-damazlıq qrupunun ana arıların və ilkin təcrübə qrupu analarının xortumunun uzunluğu, baldırın uzunluğu, kubital indeks və sarılıq indeksi, mayalanmış və mayalanmamış ana arının kütləsi, gün ərzində ananın qoyduğu yumurtanın miqdarı və yumurtalıqda yumurta borularının miqdarı müqayisə edilmişdir. Mövcud göstəricilər biometrik cəhətdən etibarlı olmuşdur.

**TƏDQIQAT METODU**

Arı ailələrinin damazlıq keyfiyyətləri və potensial imkanları yalnız normal inkişaf etmiş arı ailələrində obyektiv öyrənmək mümkündür. Ona görə də, aparılmış təcrübələr zamanı normal inkişaf etmiş və R.L Sultanov (1993) tərəfindən Azərbaycan şəraiti üçün müəyyən edilmiş standartlara uyğun gələn arı ailələri üzərində öyrənilmişdir. R.L. Sultanova görə arı ailələrində payız dövrü ərəfəsində (sentyabr ayının əvvəlində) yuvada 2,5-2,8 kq və ya 25-28 min arı, qışlamadan çıxdıqda (fevral ayının 2-ci 10 günlüyündə) 2 kq və ya 20 min arı, əsas nektar gəliri dövründə isə (iyunun əvvəlində) 3-3, kq və ya 30-35 min arı olduqda həmin dövrlər üçün standart ailə hesab edilməlidir. Damazlıq-seleksiya məqsədilə seçilmiş bəsləyici arı ailələrinin ana arıları yuvadan 3 çərçivə arı ilə birlikdə götürülərək onlardan köməkçi ailə kimi istifadə edilmişdir. Arının xortumunun uzunluğu və onun başqa xitin hissələri binokulyar mikroskopun altında okulyar mikrometrin köməkliyi ilə ölçülmüş və arının uzunluğu 10 dəfə, başqa hissələr isə 20 dəfə böyütməklə ölçülmüşdür. Okulyar mikrometrin ölçüləri sonra mm-ya çevrilmiş, indekslər isə faizlə hesablanmışdır.

Damazlıq arı ailələrində ana arıların yetişdirilməsi üçün bir günlük işçi arı sürfələri götürülərək bir günlük arı südü qoyulmuş ana gözcüklərinə calaq edilmişdir. Arıxanada hər bir bəsləyici arı ailəsindən 24 gün ərzində istifadə edildikdən sonra ailənin öz anası yuvasına qaytarılmışdır. Bəsləyici arı ailəsində damazlıq ana arıların yetişdirildiyi 21 gün müddətində köməkçi arı ailələrinin yuvasından götürülmüş möhürlənmiş işçi şan gözcükləri olan çərçivələr əlavə edilmişdir. Beləliklə, ana arı olmayan bəsləyici arı ailələrinin gücü əlavə vasitələrlə gücləndirilmişdir. Erkən ana arıların yetişdirilməsində bəsləyici arı ailələrindən istifadə edildiyindən onların gücünün artırılması üçün erkən yazın ilk günlərində əlavə yemlərlə yemləndirilmiş və yuvanın ortasına ana arını yumurta qoymağa məcbur etmək məqsədilə boş şan çərçivəsi qoyulmuşdur. Arı ailələri üzərində fərdi seçmə və çıxdaş üsulunu tətbiq etməklə daha məhsuldar arı ailələri yaradılmış və ilkin seçilmiş arı ailələrinin analarının müqayisəli təhlili verilmişdir (Cədvəl №1).

**Cədvəl №1. Təcrübədən əvvəl və yeni yaradılmış seleksiya-damazlıq qrupunun ana arılarının göstəricilərinin müqayisəsi.**

| Göstəricilər | Qabaqtəpə arı populyasiyası ana arıları | | |
|---|---|---|---|
| | İlkin təcrübə qrupu analarında (2013) | Yeni yaradaılmış qrupun analarında (2017) | Fərq (+, -) |
| Xortumun uzunluğu, mm | 4.055±0.005 | 4.073±0.006 | +0.018 |
| Üçüncü buğumun üst hissəsinin uzunluğu, mm | 3.10±0.01 | 3.20±0.01 | +0.10 |
| Üçüncü buğumun çıxıntıları arasında məsafə, mm | 5.45±0.04 | 5.54±0.03 | +0.09 |
| Qanadın uzunluğu, mm | 10.20±0.02 | 10.22±0.03 | +0.02 |
| Baldırın uzunluğu, mm | 3.57±0.03 | 3.65±0.02 | +0.08 |
| Birinci pəncənin uzunluğu, mm | 2.42±0.02 | 2.49±0.03 | +0.07 |

| | | | |
|---|---|---|---|
| Kubital indeksi %-lə | 51.2±0.02 | 51.3±0.02 | +0.1 |
| Sarılıq indeksi %-lə | 22.6±0.8 | 20.6±0.6 | -2.0% |
| Mayalanmamış ana arının kütləsi, mq (n=30) | 191.8±2.3 | 196.1±1.7 | +17.0 |
| Mayalanmış ana arının kütləsi, mq (n=10) | 220.6±3.5 | 225.7±2.1 | +5,1 |
| Gün ərzində ananın qoyduğu yumurtanın miqdarı, (30-Vl-9-X ) ədədlə, (n=20) | 662±61.4 | 791±42.4 | +129 |
| Yumurtalıqda yumurta borularının miqdarı, ədədlə ( n=30) | 171.5±5.21 | 185.3±4.10 | +13.8 |

Qabaqtəpə arı populyasiyasının yeni yaradılmış seleksiya-damazlıq qrupunun ana arıların xortumunun uzunluğu ilkin təcrübə qrupu anaları ilə müqayisədə 0,018 mm, üçüncü buğumunun üst hissəsinin uzunluğu ilkin təcrübə qrupu anaları ilə müqayisədə 0,10 mm, üçüncü buğumun çıxıntıları arasında məsafə 0,09 mm artmışdır. Yeni yaradılmış seleksiya-damazlıq qrupunun ana arıların qanadının uzunluğunun göstəriciləri müvafiq olaraq ilkin təcrübə qrupu anaları ilə müqayisədə 0,02 mm, baldırın uzunluğu 0,08 mm, birinci pəncənin uzunluğu 0,07 mm artıq olmuşdur. Yeni yaradılmış seleksiya-damazlıq qrupunun və ilkin təcrübə qrupu analarının eksteryer göstəricisi kimi onların kubital və sarılıq indeksləri müəyyən edilmişdir. Kubital indeks yeni yaradılmış seleksiya-damazlıq qrupunun ana arılarında 0,1 % artmış, sarılıq indeksi isə əksinə 2.0 % azalmışdır.

Ana arıların keyfiyyət göstəriciləri kimi mayalanmamış və mayalanmış ana arıların kütləsi, gün ərzində ananın qoyduğu yumurtanın miqdarı, ana arıların yumurtalığında olan yumurta borularının miqdarı müqayisə edilmişdir. Yeni yaradılmış seleksiya-damazlıq qrupunun mayalanmamış ana arıların kütləsi (n30) , ilkin təcrübə qrupunun mayalanmamış analarının kütləsi ilə müqayisədə 17.0 mq artmışdır. Müvafiq olaraq mayalanmış ana arıların kütləsində də (n10) artım müşahidə edilib (+5,1mq). Yeni yaradılmış seleksiya-damazlıq qrupunun ana arıların gün ərzində qoyduğu yumurtanın miqdarı (791 ədəd) göstəricisi müvafiq olaraq ilkin təcrübə qrupu analarının gün ərzində qoyduğu yumurtanın miqdarından çox olmuşdur. Bu göstəricilər ana arıların yumurtalığındakı yumurta borularının miqdarında da müsbət yöndə artım göstərmişdir (185,3 ədəd). Mövcud göstəricilər arasındakı fərq biometrik cəhətdən etibarlı olmuşdur.

**NƏTICƏ.**

Aparılmış təcrübələrin nəticələri göstərir ki, Qabaqtəpə arı populyasiyasının yeni yaradılmış seleksiya-damazlıq qrupunda ana arıların xortumunun uzunluğu, baldırın uzunluğu artmış, sarılıq indeksi azalmışdır. Mayalanmış və mayalanmamış ana arının kütləsi, gün ərzində ananın qoyduğu yumurtanın miqdarı və yumurtalıqda yumurta borularının miqdarı artmışdır. Mövcud göstəricilər biometrik cəhətdən etibarlı olmuşdur.

Tədqiqatın qarşısına qoyulmuş məqsədə uyğun olaraq, Kiçik Qafqaz bölgəsində Bozdağ Qafqaz arı cinsinin Qabaqtəpə arı populyasiyasının yeni yaradılmış seleksiya-damazlıq qrupunun ana arılarının eksteryer ölçüləri, məhsuldarlıq qabiliyyəti və keyfiyyət göstəriciləri təcrübədən əvvəlki ana arılarla müqayisədə yüksək olmuşdur. Yeni yaradılmış seleksiya-damazlıq qrupunun ana arılarının göstəriciləri Qabaqtəpə arı populyasiyasının genotipik əlamətlərinə uyğun istiqamətdə müsbət dəyişkənliyə məruz qalmışdır.

**ƏDƏBIYYAT SIYAHISI**

1. Sultanov R.L. Azərbaycanda bal arısının bioloji xüsusiyyətləri. cild-I, Bakı 1993, səh. 249
2. Əliyeva V.R. “Arıçılığın inkişafında seleksiya-damazlıq işlərinin əhəmiyyəti”. Gənc alimlərin kənd təsərrüfatında rolu: Problemlər və imkanlar” beynəlxalq elmi-praktik konfransın materialları. Bakı 2014 səh.48-51

3. Алиева В.Р. “Морфометрическая оценка трутней селекционно-племенной группы Кабахтапинской популяции Серой Горной Кавказской породы (*Apis mellifera caucasica Gorb.*)” Аграрная Наука, Научно-теоретический журнал № 6 2022 стр. 58-61

4. E.Akyol, H.Yeninar, O. Kaftanoglu. “Live Weight of Queen Honey Bees (Apis Mellifera L.) Predicts Reproductive Characteristics. Journal of the Kansas Entomological Society Vol. 81, No. 2 (Jun., 2008), pp. 92-100

5. M.Kara, E.Sezgin, A.Kara “Importance of caucasian honeybee and its characteristics as a gene resource”. Journal of Agricultural Science and Technology. October, 2012. pp.1197-1202

6. S. V. Svistunov, A. G. Koshchaev, N. N. Bondarenko et al. “Selection of bees of the gray mountain caucasian breed: Apis mellifera caucasica L. of the Krasnaya polyana type”. Journal of Pharmaceutical Sciences and Research December 2018, pp. 3185-3188.

# GƏNCƏ-DAŞKƏSƏN İQTİSADİ BÖLGƏSİNDƏ ALBALI VƏ GİLAS BITKISININ BAŞLICA XƏSTƏLIKLƏRIN YAYILMASI VƏ INKIŞAF DINAMIKASI

**RUHİYYƏ MƏLİKZADƏ**

Bitki Mühafizə və Texniki Bitkilər Elmi-Tədqiqat İnstitutu
Zakir.zer2017@gmail.com
Gəncə, Azərbaycan

**XÜLASƏ**

Azərbaycanın coğrafi təbii-iqlim şəraitinin müxtəlifliyi kənd təsərrüfatı bitkiləri ilə yanaşı meyvəçiliyin, o cümlədən gilas və albalının da inkişafi üçün mühüm əhəmiyyət kəsb edir. Ölkədə aparılmış aqrar islahat ilə əlaqədar istehsalının artırılması hektarda məhsuldarlığının və iqtisadi səmərəliliyinin yüksəldilməsinin başlıca yolu bu sahənin maddi-texniki bazasinin möhkəmləndirilməsi, onun elmi əsaslarla təşkil olunması, ondan səmərəli istifadənin keçirilməsindən ibarətdir. Gilas və albalı həm qida baxımından, həm də iqtisadi baxımdan tələbat olan meyvə sayılır. Meyvələrin tərkibində insan orqanizmi üçün bir çox faydalı maddələr vardır. Tərkibində olan antioksidantlar infeksion xəstəliklərlə mübarizədə təbii dərman sayılır. Gilas və albalının tərkibində şəkər, üzvi turşular, karotin, bir sira vitaminlər və s. maddələr vardir. Lakin son illərdə albalı sahəsində kəskin azalma və məhsuldarlığın azalması müşahidə olunur. Bu, bir sıra səbəblərlə bağlıdır ki, bunlardan da başlıcası ağacların ümumi vəziyyətinə, son nəticədə onların məhsuldarlığına və davamlılığına mənfi təsir göstərən müxtəlif xəstəliklərə qarşı həssaslıqdır.

2023-cü ildə elmi tədqiqat işləri Gəncə-Daşksən iqtisadi bölgəsində stasionar sahə bitki mühafizə və texniki bitkilər elmi tədqiqat institutunda tədqiqatlar aparılmışdır. Müşahidələri daha da genişləndirmək məqsədilə, respublikanın Gəncə-Daşkəsən iqtisadi bölgəsi şəraitində albalı və gilas bağlarının xəstəliklərinin növ tərkibini müəyyən etmək üçün Göygöl rayonunun Quşqara kəndində, Tovuz rayonunun Düzcirdaxan, Cəlilli kəndlərinin intensiv meyvə bağlarında müşahidələr aparılmışdır. Apardığımız tədqiqatlara görə albalı və gilas bitkilərində xəstəliklər aşkar olunmuşdur. Onlardan ən geniş yayilmiş monilioz (monilia cinerea bonord), klasterosporioz və deşikli ləkəlik (clasterosporium carpophilum aderh.), çəyirdəklilərin sitosporozu və ya infeksion qurumasi (cytospora rubensum fr., cytospora leucostoma fr.), çəyirdəklilərin vertisilliyozu və ya bitkilərin infeksion soluxmasi (verticillium dahliae kleb.), kitrə axini və ya çəyirdəklilərdə hommoz.

**SUMMARY**

The diversity of azerbaijan's geographic, natural and climatic conditions is of great importance for the development of agricultural plants and fruit growing, including cherries and cherries. In connection with the agrarian reform carried out in the country, the main way to increase productivity and economic efficiency per hectare is to strengthen the material and technical base of this field, organize

it on scientific basis, and use it effectively. Cherries and cherries are fruits that are in demand both from the nutritional and economic point of view. Meyvələrin tərkibində insan orqanizmi üçün bir çox faydalı maddələr vardır. The antioxidants contained in it are considered a natural medicine in the fight against infectious diseases. Cherries are contain sugar, organic acids, carotene, a number of vitamins, etc. ingredients. However, in recent years, there has been a sharp decrease in the cherry area and a decrease in productivity. This is due to a number of reasons, the main of which is susceptibility to various diseases that negatively affect the general condition of trees, ultimately their productivity and durability.

In 2023, scientific research studies were carried out at the stationary plant protection and technical plants scientific research institute in the ganja-dashksen economic region. In order to further expand the observations, in order to determine the species composition of diseases of cherry and cherry orchards in the Ganja-Dashkasan economic region of the Republic, observations were made in the intensive orchards of the villages of Duzcirdakhan and Jalilli in the villages of Goygol district, Gushgara district, Tovuz district. According to our researches, diseases were found in cherry and cherry plants. Among them, the most common are Moniliosis (Monilia cinerea Bonord), Clasterosporiosis and hole spot (Clasterosporium carpophilum Aderh.), Cytosporosis or infectious wilt of grasshoppers (Cytospora rubensum Fr., Cytospora leucostoma Fr.), Verticilliosis of grasshoppers or infectious wilt of plants (Verticillium dahliae Kleb.), Cytre flow or hommosis in crustaceans.

**AÇAR SÖZLƏR:** albali, gilas, meyvə, xəstəlik, növ tərkibi, sirayətlənmə, inkişaf dinamikasi

**KEY WORDS:** cherry, cherry, fruit, disease, species composition, infection, development dynamics

## GIRIŞ

Azərbaycan Respublikasının iqlim və torpaq şəraiti, vegetasiya dövrünün uzun müddətliliyi və günəşli günlərinin sayı ilə fərqlənən respublika ərazisində yetişdirilən bu çəyirdəkli meyvələr xüsusi dadı və əmtəə göstəriciləri ilə fərqlənirlər. Bölgə iqtisadiyatında əhəmiyyətli rol oynayan meyvəcilikdə çəyirdəkli meyvələr xüsusi yer tutur. Bütün bölgələrində becərilmə imkanlarının geniş olması, məhsuldan müxtəlif məmulatların hazırlanması, ondan həm təzə həm emal olunmuş şəkildə bütün ilboyu istifadə imkanlarının geniş olması, əhalinin günü gündən artan tələbatı çəyirdəkli meyvə bitkilərin becərilmə texnologiyasının işlənib hazırlanmasına əsas verir. Çəyirdəkli meyvə bitkiləri xarici mühit amillərinə münasibəti müxtəlifdir. Bu bitkilər müxtəlif vaxtlarda çiçəklədiyindən, müxtəlif vaxtda yetişdiyindən və eləcədə müxtəlif strukturlu torpaqlarda becərildiyindən hər bir sortun bioloji xüsusiyyətinə uyğun qulluq texnologiyası tətbiq olunmasını tələb edir. Təkcə son bir il ərzində gilas bağlarının sahəsi 1200 ha artmışdır. Azərbaycanın Quba-Xaçmaz iqtisadi zonası, gilas istehsalının 45%-ni təşkil edir. Ümumillikdə respublikamızda 7199 ha gilas, 2149 ha albalı ağacları vardır. Gəncə-Daşkəsən iqtisadi bölgəsində 102 ha gilas və albalı bağları təşkil edir.

Gilas və albalı bitkisinin mədəni növləri çox olduğundan yabanı növləri öz əhəmiyyətini itirib. Gilas və albalı aprel-mayda çiçəkləyir, meyvələri iyun-iyul aylarında yetişir. Forması yumru və ya ürək şəklində olur. Qara, sarı-qırmızı, tünd qırmızı və qara-bənövşəyi rəngdə olurlar. Gilasın dadı əsasən şirin, albalının dadı isə turş və ya turşa-şirin, bəzi hallarda acı olur. Gilas albalıya nisbətən istisevən bitkidir. Bu meyvələr təzə halda yeyilir. Albalı ( Prunus subg. Cerasus) bitkilər aləminin gülçiçəklilər dəstəsinin gülçiçəyikimilər fəsiləsinin gavalı cinsinə aid bitki növüdür. Albalı sahəsinə görə MDB məkanında almadan sonra ikinci yeri tutur. Meyvələrinin tərkibində 7,3- 17,5 faiz şəkər, 0,8-2,7 faiz turşu, 0,05-0,02 faiz dabbaq maddəsi, 0,76-1,3 azotlu maddə, 0,57 faiz kül elementi, 0,57-1,8 faiz pektin maddəsi və müxtəlif vitaminlər vardır. Meyvələrindən həm təzə, həm də emal olunmuş halda istifadə edilir. Meyvələrindən mürəbbə, cem, şirə, şərab, kompot və s. istehsal olunur. Yarpaqlarından duza, turşuya qoymaq üçün, çiçəkləri isə bal arıları üçün çox faydalıdır (bal toplamaq üçün). Albalının 150 növündən 20 növü MDB məkanında yayılmışdır. Dünyada 800-ə qədər albalı sortu vardır. Bundan Azərbaycanda adları qeyd olunan Anadolu, Podbel, İngilis tezyetişəni, Şpanka, Jukovskaya sortları əkilir və iyun, iyul aylarında yetişir. (Faiq Xudayev və Ramil Nəbiyev, Bitkilər və onlardan istifadə, Bakı 2018. 21)

Gilas ( Cerasus avium) – gavalı cinsinə aid bitki növüdür. Gilas geniş yayılmış meyvə bitkisidir. Meyvələrinin tərkibində 18 faiz şəkər, 0,32-1,29 faiz turşu, 0,03-0,21 dabbaq maddəsi, 0,46-0,71 faiz pektin, 0,44 faiz kül elementi, 0,25 faiz sellüloza, C, A vitaminləri və karotin vardır və çəyirdəyində

5,65 faiz yağ olur (Şəkil 1.28). Meyvələrindən təzə halda istifadə edilir, həmçinin, meyvəsindən kompot, mürəbbə və digər məhsullar hazırlanır. Gilasın yabanı halda bir növü - adi gilas yayılmışdır. Respublikamızda gilasın daha çox geniş əkilən sortları Biqarro Qrol, Ramon Oliva, Tezyetişən Kassini, Sarı Droqana, Frans İosif, Kəl ürəyi sortlarıdır və əsasən iyun, iyul aylarında yetişir. (Faiq Xudayev və Ramil Nəbiyev, Bitkilər və onlardan istifadə, Bakı 2018. 21)

**Monilioz** ( *Monilia cinerea Bonord* ) yayılması və zərərinə görə çəyirdəkli meyvə bitkilərinin xəstəlikləri arasında aparıcı yerlərdən birini tutur. Dünya ölkələrinin çəyirdəklilər becərilən bağlarında rast gəlinir. Ən çox Ukrayna, Baltikyanı ölkələr, Moldova, Belorus, Rusiyanın Şimali Qafqaz bölgəsində, Türkiyə, İran, Gürcüstan da yayılmışdır.

İ.H.Cəfərovun 1990-2005-ci illərdə apardığı tədqiqatlar göstərir ki, çəyirdəkli meyvə bitkilərinin moniliya yanığı xəstəliyinə ölkənin bütün iqtisadi rayonlarında rast gəlinir. 1992-2000-ci illərdə moniliozun albalıda yayılması Gəncə-Daşkəsən iqtisadi rayonunda orta hesabla 65,7%, Dağlıq Şirvanda 57,8%, Abşeron yarımadasında 76,4%, yazı daha quraq keçən Naxçıvan MR-də 30,8% təşkil etmişdir. 1991 və 1994-cü illərdə Naxçıvan MR, 1996 və 1999-cu illərdə Gəncə-Daşkəsən və Şəki-Zaqatala, 2002 və 2004-cü illərdə Dağlıq Şirvan, Yuxarı Qarabağ və Quba-Xaçmaz iqtisadi rayonlarında monilioz epifitotiya xarakteri daşımışdır. Təkcə 1996-cı ildə albalı orqanlarının moniliozla yoluxması respublika üzrə orta hesabla 85-100% olmuşdur. (İbrahim cəfərov, Fitopatologiya, Bakı Elm 2012. 440)

Monilioz xəstəliyinin uzun illər izlənməsi göstərir ki, respublikanın müxtəlif rayonlarında onun inkişafı 2-3 ildə bir dəfə epifitotiya xarakteri daşıyır. Xəstəliyin yaz formasını moniliya yanığı adlandırırlar, bu forma qəflətən hamasçiçəklərin soluxması, qonurlaşması, yarpaq, cavan zoğ və meyvə budaqlarının quruması ilə xarakterizə olunur. Yoluxmuş çiçək və yarpaqlar tökülmür, uzun müddət ağacda qalır və yanıq görkəmi alır. Sonrakı müddətdə xəstəlik yoluxmuş budaq üzrə tədricən hərəkət edir və daha yeni sahələr tutur. Rütubətli havada sirayətlənmiş çiçək, toxumluq, yarpaq və budaqlarda küləoxşar-boz yastıcıqlar şəklində spor mərhələsi inkişaf edir. Yoluxmuş budaqların qabığı quruyur, büzüşür və partlayır, bir çox yerdən, xüsusilə sağlam ilə sirayətlənmiş toxumanın sərhəddində kitrə axını müşahidə olunur. Meyvə çürüməsi formasında xəstəlik meyvələr yetişən zaman yay dövrü meydana çıxır. Əvvəlcə meyvədə böyük olmayan qonur ləkə əmələ gəlir, sonra həmin ləkə tezliklə böyüyür və bütün meyvəni tutur.

**Klasterosporioz və deşikli ləkəlik** *(Clasterosporium carpophilum Aderh.)* xəstəliyin yarpaqda meydana çıxması klasterosporioz üçün daha xarakterikdir. Əvvəlcə onların səthində böyük olmayan qırmızıtəhər bənövşəyi və ya qonur-çəhrayı, tək-tək və ya çox saylı ləkələr əmələ gəlir. Bir neçə gün müddətində onlar ölçücə böyüyür, ləkənin daxili hissəsi ölüşgəyir və şəffaf-qəhvəyi rəng alır. Bundan 1-2 həftə sonra toxumanın ölüşgəmiş hissəsi tökülür, yarpaqlarda qırmızı-qonur və ya moruq haşiyəli deşiklər meydana çıxır. Məhz bu əlamətlərə görə klasterosporioz digər göbələk və bakteriya mənşəli xəstəliklərdən fərqlənir. Adətən klasterosporiozla yarpaqların sirayətlənməsi zamanı bir neçə ləkə birləşir, xüsusilə yarpaq ayasının ətrafları boyunca iri bükülmüş toxuma sahəsi əmələ gəlir.

**Çəyirdəklilərin sitosporozu və ya infeksion quruması** *(Cytospora rubensum Fr., Cytospora leucostoma Fr.)* xəstəliyin xarakterik əlaməti skelet budaqlarında və ştambın qabığında iri, uzununa dartılmış, kitrə axan yaraların əmələ gəlməsidir. Məhv olmuş qabıq altında oduncaq da yoluxur. Tündləşmiş, nekrozlu oduncağın sahələri adətən səthi yaranır, ölçülərindən iri olurlar. Cytospora göbələyinin sporları tünd iri çox kameralı piknid formasında qabığın altında qoyur. Ağacların ölməsi, budaqların quruması adətən yazda və ya yayın birinci yarısında təsadüf olunur. Əgər ağacların məhvi tumurcuqların açılmasına qədər baş verirsə, qönçələr qonurlaşır, qıvrılır, quruyur və məhv olmuş budaqdan uzun müddət tökülmürlər. Əgər yarpaq tumurcuqları açılarsa, yarpaqlar kiçik, xloritik olurlar. Quru isti havaların düşməsi ilə əlaqədar belə yarpaqlar 3-4 gün müddətində quruyur, yaşıl rəngi itirmir və habelə uzun müddət ağacdan asılı vəziyyətdə qalır. Budaqların belə tez bir zamanda məhvi aparıcı boruların tutulması ilə əlaqədardır. Oduncaq birtərəfli qaydada nekrozla yoluxduqda ağaclar yavaş-yavaş quruyur və onların tam məhvi 3-4 ildən sonra başlayır.

**Çəyirdəklilərin vertisilliyozu və ya bitkilərin infeksion soluxması** *(Verticillium dahliae Kleb.)* xəstəlik əvvəlcə aşağı yarus yarpaqlarda, yarpaq ayasının kənarlarından sarımtıl rəng alır və eyni zamanda qıvrılmağa başlayır. Sonradan bu hissədə olan bütün mürrəkkəb yarpaq qıvrılır, qonurlaşır və soluxur. Gilas və albalıda oduncağın tündləşməsi zəif ifadə edilir. O yalnız ştambın kəsiyində müşahidə edilir, skelet budaq və zoğların kəsiyində nadir hallarda təsadüf edilir. Tündləşmiş oduncaq

toxumalarının damarlarında mikroskopla tədqiqatlar apararkən çoxillik budaqlanan mistel, habelə kitrə yığını müşahidə edilmişdir. Bu kitrə hüceyrə örtüyünün parçalanmasının məhsullarıdır. Müxtəlif tədqiqatlarla sübut edilmişdir ki, yoluxmuş bitki və ya budaqların məhv olması ötürücü sistemin mexaniki tutulmasının nəticəsi yox, xəstəlik törədicinin ayırdığı toksinlərin nəticəsidir. Bitki hüceyrələrinə düşərək, onlar fizioloji prosesləri pozur, xüsusilə azot mübadilələrinə güclü təsir göstərirlər.

**Kitrə axını və ya çəyirdəklilərdə hommoz** xəstəliyi ağacların gövdə və budaqlarında, qatı, yapışqan maddənin ayrılması ilə xarakterizə olunur. Kitrə əvvəlcə duru, sonra bərk, tünd, şüşəşəkillidir. Kitrə axınının əsas səbəbləri ən çox fizioloji, eyni zamanda qeyri-parazit xarakterli olur. Bitkilərin klasterosporioz, bakterial xərçəng, monilioz, vertisillioz və s. kimi təhlükəli xəstəliklərinin təsiri altında baş verir. Onun əmələ gəlməsində əlverişsiz hava şəraiti (şaxtadan donma, günəş- şaxta yanıqları), torpaq amilləri, balanslaşdırılmamış mineral qidalanma mühüm rol oynayır. Bəzən kitrə mexaniki zədələnmə, həşəratlar, xüsusilə qabıqyeyənlər və s. təsiri altında baş verir.

**TƏDQIQAT METODU**

Albalı və gilas bitkisinin bol və keyfiyyətli məhsul almaq üçün onun xəstəliklərinin növ tərkibinin öyrənilməsi və başlıca xəstəliklərinə qarşı mübarizə tədbirlərinin işlənib hazırlanması günün ən aktual məsələlərindən biridir. Xəstəliklərin növ tərkibini müəyyən etmək üçün institutun albalı plantasiyaların sahəsində vegetasiyanın əvvəlindən, məhsul yığımına qədər müşahidələr aparılmışdır. Xəstəliklərin yayılmasının dəqiqləşdirilməsi M.İ.Dementiyeva (1985) tövsiyə etdikləri metodikayla əsaslanmışdır.

Albalı və gilas bitkisində xəstəliklə sirayətlənmiş yarpaqların miqdarını və yayılma dərərcəsini müəyyən etmək üçün təcrübə sahəsinə 10 ağac olmaqla müşahidələr aparılmışdır. Müşahidə olunan ağaclardan müxtəlif hündürlükdə 4 tərərfdən etiketlənmiş, 4 budaq olmaqla, hər budağın 25 yarpağına baxış keçirilmişdir. Xəstəliyin yayılma faizi aşağıdakı düsturla hesablanır:

$$P = \frac{n \cdot 100}{N}$$

burada: P–xəstəliyin yayılması, %
n–təcrübədəki xəstə bitkilərin sayı
N–ümumi baxilan bitkilərin sayı
100–faizə çevrilmə əmsalıdır.

Bitkilərin xəstəliklərə yoluxması M.İ.Dementiyeva (1985) 4 ballı şkalasından istifadə etməklə aparılacaqdır.

0 ball–yarpaqlarda xəstəlik müşahidə olunmur.
1 ball–ləkələr yarpaq səthinin 10%-ə qədərini sirayətləndirir.
2 ball–ləkələr yarpaq səthinin 11-25%-ə qədərini sirayətləndirir.
3 ball–ləkələr yarpaq səthinin 26-50%-ə qədərini sirayətləndirir.
4 ball– ləkələr yarpaq səthinin 51-75%-dən çoxunu yoluxdurur.

Xəstəliyin yayılma intensivliyi aşağıdakı düsturla hesablanır:

$$R = \frac{\sum(a \cdot b)}{N \cdot k} \cdot 100$$

burada: R–xəstəliyin yayılma intensivliyi, %
$\sum(a \cdot b)$–xəstə bitkilərin (a) müvafiq balla (b) sirayətlənməsinin cəmi:
N–baxılan bitkilərin ümumi sayı
k- şkalada ən yüksək bal

**NƏTİCƏ**

Apardığımız tədqiqat nəticəsində 2023-cü ildə tədqiqat zamanı Gəncə-Daşkəsən iqtisadi bölgəsində albalı və gilas bitkilərində 5 növ xəstəlik qeydə alınmışdır.

**Cədvəl 1.**

| № | Xəstəliklərin adı | Gəncə-Daşkəsən bölgəsi | | |
|---|---|---|---|---|
| | | Gəncə | Göygöl | Tovuz |
| 1 | Monilioz – *Monilia cinerea* Bonord. | + | + | + |
| 2 | Klasterosporioz və deşikli ləkəlik- *Clasterosporium carpophilum* (Lev.) *Aderh.* | + | _ | + |
| 3 | Çəyirdəklilərin vertisilliyozu və ya bitkilərin infeksion soluxması- *Verticillium dahliae Kleb.* | + | - | + |
| 4 | Çəyirdəklilərin sitosporozu və ya infeksion quruması - *Cytospora rubensum Fr., Cytospora leucostoma Fr.* | - | + | + |
| 5 | Kitrə buraxma və ya çəyirdəklilərdə hommoz | + | + | + |

Gəncə-Daşkəsən iqtisadi bölgəsinin müxtəlif areallarda xəstəliklərin vegetasiya müddətində stasionar və bölgənin albalı bağlarında marşurut müayinələr aparılaraq xəstəliyin yayılması və inkişafının intensivliyinin tədqiqatını aparılmışdır. Tədqiqatların nəticəsinə görə albalı və gilas ağaclarında Monilioz (Monilia cinerea Bonord) xəstəliyin sirayətlənmə artaraq iyul ayında ümumi sirayətlənmə 18,1%, intensivlik isə 8,3% olmuşdur. Cədvəl 2.

| Aylar | Günlər | Orta sutkalıq temperatur $^0$C | Nisbi rütubət % | Sirayətlənmə %-lə | |
|---|---|---|---|---|---|
| | | | | ümumi | intensivlik |
| İyun | 05.06.2023 | 15,4 | 80,3 | 1,1 | 0,2 |
| | 15.06.2023 | 15,5 | 76,3 | 3,1 | 0,7 |
| | 25.06.2023 | 26,8 | 71,0 | 8,0 | 3,2 |
| İyul | 05.07.2023 | 23,9 | 76,7 | 13,1 | 5,2 |
| | 16.07.2023 | 24,8 | 61,0 | 18,1 | 8,3 |

**Cədvəl 2.** Albalı və gilas bitkisində monilioz xəstəliyinin inkişaf dinamikası

**ƏDƏBİYYAT SİYAHISI**

1. İbrahim cəfərov, Fitopatologiya, Bakı Elm 2012. 440
2. Faiq Xudayev və Ramil Nəbiyev, Bitkilər və onlardan istifadə, Bakı 2018. 21
3. Olqa vlasova, Kənd təsərrüfati elmləri namizədi, ukrayna naas bitki mühafizəsi institutu.
5. Nasonava g.v. Gilasda moniliozla mübarizə problemi və onun həlli yollari // orel, ümumrusiya meyvəçilik elmi-tədqiqat institutu, müasir bağçiliq, № 3, 2017
6. Всероссийский Институт Генетических Ресурсов Растений Http://www.vir.nw.ru › uploads › 2020/04
7. Проблема борьбы с монилиозом на вишне и пути ее . КиберЛенинка https://cyberleninka.ru › article › problema-borby-s-mo. Автор: ГВ Насонова · 2017 · Цитируется.

# GƏDƏBƏY RAYONUNDA BITƏN BƏZI DƏRMAN (KƏKLIKOTU, ITBURNU, QANTƏPƏR,UZUNYARPAQ YARPIZ VƏ GÜLXƏTMI) BITKILƏRININ MIKOBIOTASI

**Əsgərova Aysel Fidan Məmmədova**

Bakı Dövlət Universiteti
Biologiya
ayselaskerova27@gmail.com, fidan8400@mail.ru
Bakı, Azərbaycan

**Xülasə**

Tədqiqat işində Gədəbəy rayonunda bitənbəzi dərman bitkilərinin-kəklikotu, itburnu, qantəpər,uzunyarpaq yarpız və gülxətminin mikobiotası öyrənilmişdir.Tədqiqat obyekti kimi bu dərman bitkilərinin növlərindən istifadə olunmuşdur.Tədqiqat zamanı götürülmüş nümunələrdə yaşayan göbələklərin təmiz kulturaya çıxarılması zamanı DG18 (Dichloran glycerol choloramphenicol), Sabouraud Chloramphenicol və YGC(yeast extract glucose chloramphenicol) mühitlərindən istifadə olunmuşdur.Məlum olan metodlara müvafiq olaraq mühitlərin hazırlanması, petri qablarına tökülməsi və sterilizasiyası aparılmışdır.Göbələklərin identifikasiyası təmiz kulturaya çıxarılanların kultural morfoloji və fizioloji əlamətlərinə əsasən müvafiq təyinedicilərdən ,həmçinin də Beynəlxalq Assosiyasının(BMA) və CBC fondunun baza məlumatlarından istifadə olunmuşdur. Beləliklə eksperiment zamanı Mucor racemosus, Corynespora torulosa, Mucor racemosus,Aspergillus niger,Aspergillus genus,Penicillium chrysogenum ,xylariaceae sp,penicillum notatum, hizopus stolonifer,aspergillus tamarii növləri təyin edilmişdir.

**Summary**

The Gadabay region's mycobiota of therapeutic herbs, including thymus, rose hip, cephalaria, mentha longifolia and hollyhocks was investigated in this study.

These therapeutic plant species were chosen as study subjects. For the pure cultivation of the fungi present in the study samples, DG18 (Dichloran glycerol chloramphenicol), Sabouraud Chloramphenicol, and YGC (yeast extract glucose chloramphenicol) mediums were utilized. According to the known methods, mediums were prepared, poured into petri dishes and sterilized. The basic data from the International Association (IA) and the CBC foundation, along with the indicators of pure culture and pertinent cultural morphological and physiological factors, were utilized to identify mushrooms. As a result, the following were identified during the experiment: Mucor racemosus, Corynespora torulosa, Mucor racemosus, Aspergillus niger, Aspergillus genus, Penicillium chrysogenum, xylariaceae sp, penicillum notatum, hizopus stolonifer, aspergillus tamari.

**Açar sözlər**-mikobiota,cins,ekolo-trofik

## Giriş

Özünün təbiət mənzərələri ilə hər kəsi valeh edən Gədəbəyin uca dağları və bu dağların meşələri bir çox müalicəvi xüsusiyyətləri ilə seçilən bitki və meyvələrlə zəngindir. Həmin bitki və meyvələrin müalicəvi xüsusiyyətləri, təbabətdə istifadəsi, müalicə üsulları insanlara çoxdan məlumdur. İnsanlar hələ qədim zamanlardan bəri onlardan bu və ya digər xəstəliyin müalicəsində geniş istifadə etmişlər. Həmin müalicə üsulları isə zamanın sınağından uğurla çıxaraq müasir elmi-texniki tərəqqi əsrində də öz əhəmiyyətini itirməmişdir.

**Tədqiqatın məqsədi və vəzifələri.** Gədəbəy rayonunda rast gəlinən bəzi dərman bitkilərinin mikobiotasının formalaşmasında iştirak edən müxtəlif növ göbələklərin təyin edilməsinə,ekolo-trofik əlaqələrinə,həmçinin mikobiotanın formalaşmasında iştirak edən göbələklərin patogenlik aktivliyinə görə tətbiq edilməsinə əsaslanmışdır.

**İşin elmi yenilikləri**.Aparılan tədqiqatlarda Gədəbəy rayonunda rast gəlinən bəzi dərman bitkilərinin cins müxtəlifliyinin növ tərkibinə,mikobiotasının formalaşmasında iştirak edən göbələk növlərinin ekolo-trofik əlaqələrinə görə qruplaşdırılmasına, rastgəlmə tezliyinə,bəzi dərman bitkiləri

nümunələrində müşahidə olunan patalogiyaların törədicilərinin ekoloji,mikoloji və bioloji xüsusiyyətlərinə görə tədqiqi aparılmışdır.

**İşin praktik əhəmiyyəti.**İşin yerinə yetirilməsi zamanı tədqiq olunmuş bəzi dərman bitkilərinin nümunələrində əldə edilən məlumatlar göbələklər haqqında faktiki materiallar olub,müəyyən edilmiş göbələk növlərinin təsirlərinin tədqiq edilməsi bitkilərdə yayılmış xəstəliklərin qarşısının alınması üçün mübarizə tədbirlərinin hazırlanmasında istifadə oluna bilər.

**Tədqiqatın metodu.**Gədəbəy rayonunda rast gəlinən bəzi dərman bitkilərinin cinslərindən nümunə götürülərək işin məqsədinə uyğun müasir mikoloji metodlara əsasən analiz aparılmışdır.

Tədqiq olunan kəklikotu, itburnu, qantəpər,uzunyarpaq yarpız və gülxətminin cinslərindən götürülmüş nümunələrdə yaşayan göbələklərin təmiz kulturaya çıxarılması zamanı DG18 (Dichloran glycerol choloramphenicol), Sabouraud Chloramphenicol və YGC(yeast extract glucose chloramphenicol) mühitlərindən istifadə olunmuşdur.Məlum olan metodlara müvafiq olaraq mühitlərin hazırlanması, petri qablarına tökülməsi və sterilizasiyası aparılmışdır.Qidalı mühitin Ph=6.4-6.8 olmuş, 25-27 C-də termostata yerləşdirilmişdir. İnkubasiyadan 3 gün sonra göbələklərin böyüməsindən və inkişafından asılı olaraq müşahidələr aparılmışdır. Göbələklərin identifikasiyası təmiz kulturaya çıxarılanların kultural morfoloji və fizioloji əlamətlərinə əsasən müvafiq təyinedicilərdən, həmçinin də Beynəlxalq Assosiyasının (BMA) və CBC fondunun baza məlumatlarından istifadə edilmişdir.Bu və ya digər xəstəliyin əlamətlərinə əsasən tərtib edilən təyinedicilərdən məlum metodik yanaşmalardan istifadə edilərək xəstəliklərin təyinatı aparılmışdır.Tədqiq olunan kəklikotu, itburnu, qantəpər,uzunyarpaq yarpız və gülxətminin cinslərinin təyinatı aşağıda göstərilən formula əsasən qəbul olunmuşdur.

$$N=n/s \quad (1)$$

N-istifadə tezliyi (əd/ha),n-tədqiq edilən ərazidə rast gəlinən konkret cinslərin sayı (əd),s-tədqiqat ərazisinin sahəsi (ha).

Nümunələrdə patogen kulturaların törətdikləri xəstəliklərin patogenlik aktivliyi aşağıda göstərilən formula ilə təyin edilmişdir:

$$P= (n/N)\times100 \quad (2)$$

P-göbələklərin nümunələr üzrə rastgəlmə tezliyi ,n-aşkar edilən göbələklərin sayı, N-nümunələrin ümumi sayı

Təcrübələr ən azı 3 təkrarda qoyularaq alınmış,nəticələr statistik işlənmişdir və bütün hallarda $m/M=P \leq 0.05$ formulasına (M-orta göstərici, m-orta kvadratik kənarlanma,P-student kriteriyasıdır.) uyğun olan məlumatlar dürüst hesab edilərək tədqiqat işinə daxil olunmuşdur.

**Nəticə**

Tədqiqat obyekti kimi kəklikotu, itburnu, qantəpər,uzunyarpaq yarpız və gülxətminin cinslərindən götürülmüş nümunələrdən aşağıdakı nəticələr əldə edilmişdir:



**Şəkil 1**.Uzunyarpaq yarpız bitkisinin cinslərində aparılmış tədqiqat işi nəticəsində bitkinin yarpağında Mucor racemosus, Corynespora torulosa göbələklərinin olduğu müəyyən edilmişdir.



**Şəkil 2.** Uzunyarpaq yarpız bitkisinin cinslərində aparılmış tədqiqat işi nəticəsində bitkinin yarpağında tədqiq edilmiş Mucor racemosus göbələyinin mikroskop altında görünüşü.



**Şəkil 3.** Kəklikotu cinslərində aparılmış tədqiqat işi nəticəsində bitkinin yarpağında Aspergillus niger,Aspergillus genus göbələklərinin olduğu müəyyən edilmişdir.



**Şəkil 4.** İtburnu cinslərində aparılmış tədqiqat işi nəticəsində bitkinin çiçəyində Penicillium chrysogenum ,xylariaceae sp,penicillum notatum göbələklərinin olduğu müəyyən edilmişdir.



**Şəkil 5**. İtburnu bitkisinin cinslərində aparılmış tədqiqat işi nəticəsində bitkinin yarpağında tədqiq edilmiş penicillium chrysogenum göbələyinin mikroskop altında görünüşü.



**Şəkil 6.** Gülxətmi cinslərində aparılmış tədqiqat işi nəticəsində bitkinin yarpağında Rhizopus stolonifer göbələyinin olduğu müəyyən edilmişdir.



**Şəkil 7**. Qantəpər cinslərində aparılmış tədqiqat işi nəticəsində bitkinin aspergillus tamarii göbələyinin olduğu müəyyən edilmişdir.

**Ədəbiyyat siyahısı**

**1.**R.Y.Rzazadə-Azərbaycanın dərman bitkiləri,1942 s82-83

**2.** B. Mehrolia, S. A. Kalkar and S. D. Bhiwagade- Isolation and Identification of Fungi from Poultry Feed,2015.

**3.** N.Əliyev; Elmi red.: F.Y.Qasımov- Azərbaycanın dərman bitkiləri və fitoterapiya,1988 s130-136

**4.** Axundov T.M., Eyubov B.B., Əhmədov S.Y. Azərbaycanın mikobiotası Bakı: Təhsil, 2008, 352s

# AZƏRBAYCAN RESPUBLİKASI XƏZƏR SAHİLİ ƏRAZİDƏ YERLƏŞƏN ABŞERON MİLLİ PARKININ TƏBİİ BİTKİLİYİNİN TƏSNİFATI

**Hüseynova Humirə Zəfər qızı[1], Məmmədli Səbinə Rəhman qızı[2]**

Bakı Dövlət Universiteti, Biologiya fakultəsi
Humirahuseynova@bsu.edu.az
Bakı, Azərbaycan

**Xülasə.**

Təbii sərvətlərin mühüm tərkib hissəsi olan bioloji müxtəlifliyin mühafizəsi sahəsində beynəlxalq əməkdaşlığı genişləndirmək üçün Azərbaycan Respublikası 2000-ci ilin martında Birləşmiş Millətlər Təşkilatının "Bioloji müxtəliflik haqqında" Konvensiyasına qoşulmuşdur .

XX əsrin ortalarından etibarən biomüxtəlifliyə və ekosistemə təhlükə törədən insan fəaliyyəti nəticəsində bioloji müxtəlifliyi degradasiyaya uğramış, bir çox bitki növləri məhv olmuş və ya onların sayı kəskin surətdə azalmağa başlamışdır. Bioloji müxtəlifliyin belə itkisi onun qorunub saxlanılması, elmi əsaslarla öyrənilməsi və davamlı istifadəsinə dair ciddi tədbirlərin görülməsini tələb edir. Bundan ötrü "Azərbaycan Respublikasında bioloji müxtəlifliyin qorunması və davamlı istifadəsinə dair Milli Strategiya və Fəaliyyət Planının təsdiq edilməsi haqqında" Ölkə Prezidentinin 2006-cı il 24 mart tarixli 1368 nömrəli sərəncamında bioloji müxtəlifliyin qorunması üzrə təhlükə altında olan yabanı bitkilərin və vəhşi heyvanların təbii bərpasının öyrənilməsi üçün elmi tədqiqatların aparılması göstərilmişdir.

Bu problemlə əlaqədar olaraq Azərbaycan ərazisi daxilində Xəzər sahili Abşeron Milli Parkının təbii bitkiliyi tədqiq edilmişdir.

Azərbaycanın botaniki-coğrafi rayonlaşdırılmasına görə Abşeron Milli Parkı Bakı şəhərinin Xəzər rayonu ərazisinin 783 hektar sahəsində Abşeron Dövlət Təbiət Yasaqlığının əsasında yaradılmışdır.

Parkın yaradılmasında başlıca məqsəd ətraf mühitin, o cümlədən flora və faunasının mühafizəsi, nəsli kəsilməkdə olan nadir bitkilərin qorunması, turizm və istirahət zonalarının təşkili, ekoloji monitorinqin həyata keçirilməsi və əhalinin maarifləndirilməsidir.

Abşeron Milli Parkın dənizsahili qumsal fitosenozunda 2 formasiya qrupu – sarmaşıqlı-arquziyalıq (*Convolvuletum-Argusiosum*) və cığlı-yovşanlıq (*Jungusetum-Artemisiosum)* formasiyasının növ tərkibi və quruluşunun öyrənilməsi yabanı florasının qorunması üçün imkan yaradır.

**Açar sözlər.** *areal, biomüxtəliflik, formasiya, assosiasiya, dominant*

**Abstract**: In March 2000, the Republic of Azerbaijan joined the United Nations' Convention on Biological Diversity to enhance international cooperation in protecting biological diversity. Human activities since the mid-20th century have led to the degradation of biological diversity and ecosystems, causing the destruction and sharp decline in the number of plant species. To address this loss, it is essential to take serious measures for preservation, scientific study, and sustainable use. As a response, the President of the Republic of Azerbaijan approved the National Strategy and Action Plan for the protection and sustainable use of biological diversity on March 24, 2006. This plan includes scientific research to study the natural recovery of endangered wild plants and animals to protect biological diversity. As part of this effort, the natural vegetation of Absheron National Park on the Caspian coast in Azerbaijan was studied.

***Key words****: area, biodiversity, formation, association, dominant*

**Giriş.** Təbii ekosistemdən səmərəli istifadə etmək üçün Xəzər sahilinin Abşeron Milli Parkında ekoloji-geobotaniki tədqiqatlar nəticəsində regionun təbii bitki örtüyünün quruluşunu öyrənmək məqsədi ilə öncə taksonomik təhlil aparılmış eləcə də ekoloji- geobotaniki xəritəsi tərtib edilmişdir. Abşeron yarımadasının cənub-şərq qurtaracağında, Şah Dili adlanan ərazidə 783 hektarlıq sahədə Azərbaycan Respublikasının Abşeron Milli Parkı yerləşir. Ərazinin 375 ha quruya, 408 ha dənizi əhatə edir. Abşeron Milli Parkı Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 8 fevral tarixli Sərəncamı

ilə Bakı şəhərinin inzibati ərazisində, Abşeron Dövlət Təbiət Yasaqlığının bazasında yaradılmışdır. Yarımsəhra və quru bozqırların mülayim isti iqlim tipinin hakim olduğu Milli Parkının yaradılmasında məqsəd vəhşi təbiətin mühafizəsini, nəsli kəsilməkdə olan nadir flora və fauna növlərinin qorunub saxlanmasını təmin etmək, o cümlədən ekoturizm üçün mövcud olan təbii imkanları dəyərləndirməkdən ibarətdir.

Həmçinin alınmış nəticələrə əsasən biomüxtəlifliyin qorunmasına dair müəyyən tövsiyyələr işlənib hazırlanmlşdır. Ərazinin bitki qruplaşmalarında dominantlıq edən növlərin morfoloji və ekoloji xüsusiyyətləri araşdırılmış və onların floristik təsnifatı tərtib olunmuşdur.




linin şimal hissəsinin ekoloji-geobotaniki xəritəsi.

Araşdırma göstərir ki, Xəzər sahilinin şimalında dənizkənarı sahil qumluqlarda xarakterik bitki örtüyü formalaşır [1,2,3]. Parkın yabanı florasında 25-ə qədər bitki növü mövcuddur.

Tədqiqatlar və araşdırmalara istinad edilməklə Xəzər sahili bitkiliyinin yeni təsnifatı hazırlanmışdır [4,5,6.]. Bu mövcud təlimat və metodikaya əsasən çöl tədqiqatları müddətində qeydə alınmış təsvirlərdə əks olunduğu kimi dominant və subdominant növlərin həyatı formaları, habelə sistematik taksonlar üzrə formasiyaların cinslər və assosiasiyaların növlərə uyğun adlandırılması şərti ilə ərazinin bitki örtüyünün təsnifatı eko-fitosenoloji prinsiplərə əsasən verilmişdir.

Bitkiliyin təsnifatı ilə bağlı E.M.Qurbanov və M.T.Cabbarov [10] qeyd edir ki, bir-birinə oxşar assosiasiyalar qrup assosiasiyada, qrup assosiasiyalar qrup formasiyada, qrup formasiyalar sinif formasiyalarda, sinif formasiyalar isə bitkilik tipində birləşirlər.

Sarmaşıqlı – arquziyalıq (*Convolvuletum – Argusiosum*) formasiyası qrupu

Bu formasiya qrupunda İran sarmaşıqlı–Soqdian arquziyalı Soqdiana assosiasiyası təmsil olunur (72 №-li konturda göstərilir, xəritə 1.).

Assosiasiyanın bitki örtüyü sovrulan qumluqlarda rast gəlinir.

Xəzər sahilinin orta hissəsində (Abşeron yarımadasının sərhəddindəki Yaşma inzibati-ərazi dairəsində), həmçinin Bakı şəhəri Xəzər və Pirallahı rayonların, eləcə də Pirallahı adasının hüdudunda yayılan psammofit səhra bitkiliyi (Abşeron Milli Parkın sərhəddində) yayılmışdır.

Təsvirdən göründüyü kimi dənizkənarı qumlu səhra bitkiliyinin, eləcə də formasiyasının əsasını psammofitlər təşkil edirlər. Bitki örtüyünün növ tərkibində 21 növ təsadüf olunur ki, bundan 4 növ (19,0%) kollar, 1 növ (4,8%) yarımkol, 10 növ (47,6%) çoxillik otlar, 1 növ (4,8%) ikilllik ot və 5 növ (23,8%) birillik otlardır. Eyni miqdarda bitkilərdən 10 növ (47,6%) psammofitlər, 2 növ (9,5%) mezokseropsammofit, 1 növ (4,8%) psammofit, 2 növ (9,5%) kserofit, 2 növ (9,5%) mezofit, 2 növ (9,5%) mezokserofit, 1 növ (4,8%) halofit və 1 növ (4,8%) hidrofitlərdir.

Formasiyanın dominantı soqdian arquziyası (*Argusia sogdiana*) – bolluğu 3-4 bal və subdominantı İran sarmaşığıdır (*Convolvulus persicus*), onun bolluğu 2-3 baldır.

Quruluşuna görə fitosenozun I mərtəbəsində çoxbudaqlı yulğun (*Tamarix ramosissima*), Bakı cuzqunu (*Calligonum bakuense*), ikisünbül acılıq (*Ephedra distachya*) kolları təsadüf olunur ki, həmin kolların orta hündürlüyü 110-180 sm arasında dəyişir. Fitosenozun II mərtəbəsində Odlu astraqal yaxud gəvən (*Astracantha igniarius)*, Türkmən sirkəni (*Atriplex turcmonica*), adi dəvətikanı (*Alhagi pseudoalhagi)* və s.(bolluğu 1-2 bal); III mərtəbəsində *Argusia sogdiana, Convolvulus persicus, Lolium rigidum, Melilotus indicus, Artemisia scoparia* və s.qeydə alınır; bu mərtəbədə Fələstin qumotu (*Ammochloa palaestina)* növü tək-tək yayılır, eləcə də bu növ Azərbaycanın endemik bitkisidir. Bu mənada F. qumotu (*A. paloestina*) Abşeron yarımadasında, Şimali DRES-in ətrafında, dənizkənarı qumluqlarda təsadüf edilmişdir. Ümumi layihə örtüyü 60-80% arasında dəyişir. Ot örtüyünün orta hündürlüyü 20-40 sm-ə çatır.

Tədqiq olunmuş sarmaşıqlı-arquziyalıq *(Convolvuletum-Argusiosum)* formasiyasının bitki örtüyündə Xəzər sahili florası üçün yeni areallı bitkilər – Türkmən sirkəni *(Atriplex turcmonica),* çinmeyvə paxladən (*Astragalus falcatus*) və Xəzər dağturpu (*Erysimum caspicum*) növünün yayıldığı aşkar edilmişdir.

Bitki örtüyündə adı Azərbaycanın və Qafqazın endemləri, eləcə də adı "Qırmızı" və "Yaşıl" kitablarına daxil olunmuş Bakı cuzqunu (*Calligonum bakuense*) və türkmən sirkəni (*A. turcmonica*) növü seyrək halda (1-2 bal) yayılır.

Cığlı-yovşanlıq (*Juncusetum-Artemisiosum*) formasiyası qrupu. Bu formasiya qrupuna iti cığlı-gəcəc yovşanlığı (*Juncusetum acutus– Artemisiosum arenaria)* assosiasiyası daxildir (83 №-li konturda əks olunur).

Formasiyanın bitki örtüyü Abşeron Milli Parkını ərazisində eləcə də, dəniz sahilində şorəkətli nəmli qumluqda qeydə alınmışdır. Fitosenozun növ tərkibi və quruluşunun müfəssəl səciyyəsi müvafiq geobotaniki təsvirə əsasən açıqlanır.

Cığlı – yovşanlıq formasiyasının növ tərkibində 24 növ təsadüf olunur; bunlardan 3 növ (12,5%) kollar, 2 növ (8,3%) yarımkollar, 7 növ (29,2%) çoxillik otlar, 3 növ (12,5%) ikiillik otlar və 9 növ (37,5%) birillik otlardır. Eyni miqdarda bitkilərin ekoloji təhlilin görə 8 növ (33,3%) psammofit, 4 növ (16,7%) psammokserofit, 3 növ (12,5%) kserofit, 3 növ (12,5%) halofit, 2 növ (8,3%) hidrofit, 1 növ (4,2%) mezopsammofit, 1 növ (4,2%) psammokseromezofit, 1 növ (4,2%) mezohalofit və 1 növ (4,2%) mezokserofitlərə aiddir.

Fitosenozun strukturu yaxud quruluşuna əsasən I mərtəbəsində çoxbudaqlı yulğun (*Tamarix ramosissima),* Xəzər iydəsi (*Elaeagnus caspica*), Bakı paxladəni və ya qəvəni *(Astragalus bakuense* Bunge) kolları, ot mərtəbəsində iti cığ *(J.acutus)* – Avstraliya qamışı (Phragmites australis (Cav) Trin.ex. steud. II mərtəbəsində gəcəc yovşanı *(A.arenaria),* adi dəvətikanı (*Alhagi pseudoalhagi* (Bieb)Desv); III mərtəbəsində pürən yovşanı (*Artemisia scoparia* Waldst.et Kit), dovşan arpası (*Hordeum leporinum* Link), müxtəlif çərən (*Salsola nitraria* Pall) və s.psammofitlər rast gəlinir [10,11].

Formasiyanın dominantı gəcəc yovşanın (*A.arenaria*) bolluğu 3-4 bal və subdominantı iti cığdır (*J.acutus*) – bolluğu 2-3 baldır. Ümumi layihə örtüyü 60-80% arasında dəyişir. Ot örtüyünün orta hündürlüyü 20-40 sm-ə çatır.

Növ tərkibində qeydə alınmış Bakı paxladəni (gəvəni) (*Astragalus bakuense)* – adı "Qırmızı kitab"a daxil edilmiş nadir və endemik növdür. Bitki örtüyündə təsadüf edilən yarımçılpaq şeytanqalı (*Carduus seminudus* Bieb) Qafqaz areallı endem bitkisidir [6,5,], o cümlədən Abşeron dilqanadanı (*Galium apsheronicum* Pobed) Azərbaycanın subendemlərinə aiddir [10,11].

Burada 1-2 bal ilə qeyd olunan şovits coğanı (*Gypsophyla szovitsii* Fisch. et C.A.Mey. ex Fenzl) və müxtəlif çərən (*Salsola nitraria* Pall) isə Xəzər sahilinin yabanı florasında yeni areallı bitkilər hesab edilir [8,9,13,14].

**Nəticə.** Aparılan tədqiqat nəticəsində Abşeron Milli Parkın dənizsahili qumsal fitosenozunda 2 formasiya qrupu – sarmaşıqlı-arquziyalıq (*Convolvuletum-Argusiosum*) və cığlı-yovşanlıq (*Jungusetum-Artemisiosum)* formasiyasının qeydə alınmışdır. Hər formasiya üzrə dominant və subdominant növlərin həyatı formaları, habelə sistematik taksonlar üzrə formasiyaların cinslər və assosiasiyaların növlərə qədər təhlili aparılmışdır.

Azərbaycanın Respublikası ərazisində Xəzər sahili Abşeron Milli Parkının ekosistemində biomüxtəlifliyin, eləcə də floranın mühafizəsi, bitki örtüyünün düzgün (səmərəli) istifadəsi tədbirləri müəyyən edilmişdir.

Tədqiq edilən bitki örtüyünün müasir fitosenoloji təsnifatı ərazinin biomüxtəlifliyinin qorunması ilə yanaşı, səmərəli istifadəsi və mühafizəsinə zəmin yaradır.

**Abstract.** The Republic of Azerbaijan joined the United Nations Convention "on Biological Diversity" in March 2000 to expand international cooperation in the field of Biodiversity Conservation, which is an important component of Natural Resources .

Since the middle of the twentieth century, as a result of human activities that threaten biodiversity and ecosystem, biodiversity has degraded, many plant species have died out or their number has begun to decline sharply. Such a loss of biodiversity requires serious measures to preserve it, study it on a scientific basis and its sustainable use. For this purpose, in the Order of the president of the country "on approval of the National Strategy and Action Plan on the protection and sustainable use of Biological Diversity in the Republic of Azerbaijan" dated March 2006, 24 No. 1368, it was indicated to carry out scientific research on the protection of Biological Diversity for the study of the natural reproduction of

In connection with this problem, the natural vegetation of the Absheron National Park on the Caspian coast within the territory of Azerbaijan has been studied.

According to the Botanical-geographical zoning of Azerbaijan, Absheron National Park was established on the basis of the Absheron State Nature Reserve in the area of 783 hectares of the Caspian region of Baku.

The main purpose of the park is the protection of the environment, including flora and fauna, the protection of endangered rare plants, the organization of tourist and recreational areas, the implementation of environmental monitoring and the awareness of the population.

The study of the species composition and structure of 2 groups of formations –*Convolvuletum-Argusiosum* and *Jungusetum-Artemisiosum* in the marine sandy phytocenosis of the Absheron National Park provides an opportunity for the protection of wild flora.

**Key words.** *areal, biodiversity, formation, association, dominant*

**ƏDƏBİYYAT**

1. Axundova A.A. Abşeron yarımadasının bitki örtüyünün bioekologiyası, qorunması və bərpası. Biol.üzrə fəlsəfə doktoru dis. Avtoref. B.: 2012, 23 s.

2. Azərbaycan Florasının Lüğəti // Akad. V.C.Hacıyev və b.e.n. T.E.Qasımovanın müəllifliyi ilə //-Bakı: -"Elm", -2008, -s. 272.

3. Azərbaycan Respublikasının Bitki örtüyü (miqyas 1:600 000) //E.M, Qurbanov//- Bakı: Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi // Geodeziya və Kartoqrafiya Agentliyi// -2023.

4. Azərbaycan Respublikasının Biomüxtəliflik üzrə Ölkə Tədqiqatı (Bioloji Müxtəliflik Konvensiyası üzrə Birinci Milli Məruzə) //- Bakı: -"Əlfərül" -2004, - s.160.

5. Əsgərov A.M. Azərbaycan florasının endemləri // AMEA, Xəbərlər. Biologiya elmləri //-Cild 66, -№1, -Bakı: -"Elm", -2011, -s. 99-105.

6. Əsgərov A.M. Azərbaycanın bitki aləmi (Ali bitkilər-*Embriophyta*) //-Bakı: "Teass-press".-2016, -444 s.

7. Hüseynova H.Z. Xəzər sahilinin şimal hissəsində Botaniki-coğrafi rayonlar ərazisində bəzi növlərin yeni yayılma arealları (Azərbaycan Respublikası ərazisində) // -Bakı Üniversiteti "Xəbərlər" Təbiət elmləri seriyası №1 //-İSSN:1609-0586. -Bakı Universiteti. -2020. -s. 19-25.

8. Hüseynova H.Z. Xəzər sahilinin şimal hissəsində botaniki-coğrafi rayonları ərazisində bəzi növlərin yeni yayılma arealları // Azərbaycan Respublikası Təhsil Nazirliyi Azərbaycan Texnologiya Universiteti «Elmi Xəbərlər » məcmuəsi. № 1/34, -Gəncə. -2021.-s. 73-77.

9. Hüseynova H.Z. Xəzərsahili meşə bitkilik tipinin (Azərbaycan Respublikası ərazisində) təsnifatı // Pedaqoji Universitetin Xəbərləri. İSSN:2520-2049 //Riyaziyyat və təbiət elmləri seriyası //-Bakı: -2021, -cild 69, № 2. -s.151-161.

10. Qurbanov E.M., Cabbarov M.T. Geobotanika. Dərslik. Bakı: "Bakı Dövlət Universiteti" nəş-ı. 2017, 320 s.

11. Gurbanov E.M, Huseynova H.Z. Analysıs of the Caspıan flora of Azerbaıjan. European Academic Research. vol. VI, // Issue 10/ January 2019. // ISSN 2286-4822. www.euacademic.org. // Rımın-January 2019. -p.p. 5538-5549.

12. Gurbanov E.M, Huseynova H.Z. Research and protection of the coastal psammophyte-desert vegetation of Absheron National Park. Бюллетень науки и практики / Bulletin of Science and Practice https: //www.bulletennauki.com T. 7. №1. https://doi.org/10.33619/2414-2948/62 -2021. p.49-54.

13. Shukurov E.S, Askerov F.S, Zaytsev Y. Biodiversity of Desert and Semidesert plants of Azerbaijan. Baku. BP Caspian Sea Ltd. 2008. –p.143.

14. Флора Азербайджана. Б.: Изд-во АН Азерб. СССР. 1950-1961, т. 1-8

15. Chereoanov S. K. Vaskular Plants of Russia and Agrosent states the former USSR. NorthAmerican Branch, Cambridge Branch. Cambridge University Press. 1995.192 p.

# LANDŞAFT XÜSUSIYYƏTLƏRININ PEYK TƏSVIRLƏRI VASITƏSILƏ QIYMƏTLƏNDIRILMƏSI METODLARI

**TÜRKAN ABBASOVA**
Bakı Mühəndislik Universiteti
Memarlıq və inşaat fakültəsi/Sənaye mühəndisliyi
*tabbasova2@std.beu.edu.az*
XIRDALAN, AZƏRBAYCAN

**t.f.d., AMİL AĞAYEV**
Bakı Mühəndislik Universiteti
Memarlıq və inşaat fakültəsi/Sənaye mühəndisliyi
aagayev@beu.edu.az
XIRDALAN,AZƏRBAYCAN

**XÜLASƏ**

Peyk təsvirləri landşaft xüsusiyyətlərini qiymətləndirmək üçün vacib bir vasitə kimi ortaya çıxdı, məkan və zaman miqyasında yer səthinin dinamikası haqqında dəyərli anlayışlar təmin etdi. Bu məqalə peyk şəkilləri vasitəsilə landşaftın qiymətləndirilməsinin metodologiyalarını və tətbiqlərini tədqiq edir. Bunlara məsafədən zondlamanın əsasları, təsvirin ilkin işlənməsi üsulları, xüsusiyyətlərin çıxarılması, təsnifat üsulları, dəyişikliklərin aşkarlanması və coğrafi məkan məlumatları ilə inteqrasiya daxildir. Məsafədən zondlama texnologiyalarından və coğrafi informasiya sistemlərindən istifadə etməklə müxtəlif yanaşmalarla, fərqli illərdə çəkilmiş təsvirlərlə landşaft dinamikasının dəyişmə tendensiyası izlənildi. Şəhər mühitinin genişlənməsi, əhali artımı və iqlim dəyişmələrinin landşaft xüsusiyyətlərinə təsiri göstərildi. Tədqiqat ərazisində mühüm dəyişikliklər, torpaq örtüyünün dəyişdiyi, yaşayış sahələrinin genişlənməsi, bitki örtüyünün və su hövzələrinin azalması müşahidə olundu. Peyk təsvirlərindən və cis texnologiyalarından istifadə etməklə landşaftın dinamik dəyişikliyini aydınlaşdırdı, antropogen təsirin məkan xusisiyyətlərinə münasibətini göstərdi və bu texnologiyaların tətbiqinin ərazi haqqında daha tez və böyük miqyasda təhlillər üçün faydalı olduğunu göstərdi.

**ABSTRACT**

Satellite imagery has emerged as an important tool for assessing landscape features, providing valuable insights into Earth surface dynamics at spatial and temporal scales. This article explores the methodologies and applications of landscape assessment through satellite imagery. These include the basics of remote sensing, image preprocessing techniques, feature extraction, classification techniques, change detection, and integration with geospatial data. Using remote sensing technologies and geographic information systems, the changing trend of landscape dynamics was monitored with different approaches and images taken in different years. The effects of urban environment expansion, population growth and climate changes on landscape features were shown. Significant changes were observed in the study area, land cover changed, residential areas expanded, vegetation cover and water bodies decreased. By using satellite images and GIS technologies, he clarified the dynamic change of the landscape, showed the relationship of anthropogenic influence to the spatial characteristics, and showed that the application of these technologies is useful for faster and large-scale analyzes of the area.

Açar sözlər**:** Landşaft, Coğrafi İnformasiya Sistemləri, Məsafədən Zondlama, Peyk Təsvirləri, Landsat 5

Key words: Landscape, Geographic Information Systems, Remote Sensing, Satellite Images, Landsat 5

## GIRIŞ

Görünməmiş texnoloji tərəqqi dövründə peyk görüntüləri Yer səthindəki landşaft xüsusiyyətlərini öyrənmək və anlamaq üçün güclü bir vasitə kimi ortaya çıxdı (Linda Jridi, Chariton Kalaitzidis and Dimitrios D. Alexakis. (2023) Quantitative Landscape Analysis Using Earth-Observation Data: An Example from Chania, Crete, Greece. Land, 12, 999. https://doi.org/10.3390/land12050999. Yuxia

Zhao, Yang Wang, Zifan Zhang, Yi Zhou, Haoqing Huang and Ming Chang. (2023). The Evolution of Landscape Patterns and Its Ecological Effects of Open-Pit Mining: A Case Study in the Heidaigou Mining Area, China. International Journal of Environmental Research and Public Health, 20, 4394. https://doi.org/10.3390/ijerph20054394). Təcrübədə landşaft göstəricilərinin seçimi nəzəriyyədən daha çox məlumatların mövcudluğuna əsaslanır. Landşaft təhlili məqsədi ilə müxtəlif məlumat mənbələrindən, yəni fotoşəkillər, yer örtüyü xəritələri, peyk şəkilləri, ortofotolar, çöl müşahidələri, siyahıyaalma statistikası və sorğuların nəticələrindən istifadə edilə bilər. Landşaft keyfiyyətinin qiymətləndirilməsində uzaqdan zondlama məlumatlarının istifadəsi ənənəvi sorğu metodları ilə müqayisədə həm əmək, həm də vaxt baxımından əhəmiyyətli qənaətə imkan verir (Linda Jridi, Chariton Kalaitzidis and Dimitrios D. Alexakis. (2023) Quantitative Landscape Analysis Using Earth-Observation Data: An Example from Chania, Crete, Greece. Land, 12, 999. https://doi.org/10.3390/land12050999)

Torpaqdan istifadədə dəyişikliklərin monitorinqindən tutmuş ətraf mühitin sağlamlığının qiymətləndirilməsinə qədər peyk şəkillərinin istifadəsi landşaftların dinamik təbiətini müxtəlif məkan və zaman miqyasında müşahidə etmək və təhlil etmək qabiliyyətimizi dəyişdi.

Bitki örtüyü, su obyektləri və topoqrafiya kimi təbii elementləri, eləcə də binalar və yollar kimi insan tərəfindən yaradılmış strukturları əhatə edən landşaft xüsusiyyətləri ekosistemlərin formalaşmasında, biomüxtəlifliyə təsir etməkdə və insanların yaşayış vasitələrinə təsir göstərməkdə mühüm rol oynayır (Klepers, A., & Lakovskis, P. (2022). Identification of landscapes of national importance using GIS. Socıety Technology Solutıons Proceedings of the International Scientific Conference). Bu xüsusiyyətlərin məkan paylanmasını, tərkibini və dinamikasını anlamaq effektiv torpaq idarəçiliyi, mühafizə səyləri, şəhərsalma, fəlakətlərə cavab tədbirləri və davamlı inkişaf üçün çox vacibdir.

Bəzi tədqiqatçılar tədqiqat sahəsində torpaqdan istifadə tipləri və landşaft nümunələrindəki dəyişiklikləri təhlil etmək üçün RS və GIS-dən istifadə etmiş və məkan və landşaft həssaslığının qiymətləndirilməsi daxil olmaqla müxtəlif kontekstlərdə tədqiqatlar aparmışdır (Choudhary, K.; Boori, M.S.; Kupriyanov, A. (2018). Spatial modelling for natural and environmental vulnerability through remote sensing and gis in Astrakhan, Russia. Egypt. J. Remote Sens. Space Sci. 21, 139–147. Li, H.; Peng, J.; Liu, Y.; Hu, Y. (2017). Urbanization impact on landscape patterns in Beijing City, China: A spatial heterogeneity perspective. Ecol. Indic. 82, 50–60. Min, K.; Song, K.; Chon, J. (2020). Key coastal landscape patterns for reducing flood vulnerability. Sci. Total Environ. 759, 143454). Choudhary öz araşdırmasında Rusiyanın Astraxan şəhərində torpaqdan istifadə və örtük dəyişikliyini tədqiq etmiş və bunun üçün zəiflik xəritəsi tərtib etmişdir. Bu araşdırma RS və CİS yanaşması əsasında landşaft quruluşunda çoxşaxəli yanaşmadan istifadə edərək zəifliyi müəyyən etmiş, qiymətləndirmiş və sinifləşdirmişdir. Nəticədə müşahidə olunmuşdur ki, tədqiqat sahəsi son 15 ildə müxtəlif torpaq istifadəsi, örtü və zəiflik dəyişiklikləri ilə üzləşmiş. Zaman keçdikcə isə bitki örtüyünün meşə sahələrini əvəz etdiyi ortaya çıxmışdır (Choudhary, K.; Boori, M.S.; Kupriyanov, A. (2018). Spatial modelling for natural and environmental vulnerability through remote sensing and gis in Astrakhan, Russia. Egypt. J. Remote Sens. Space Sci. 21, 139–147). Li isə tədqiqat işində Pekin şəhərində urbanizasiya ilə landşaft quruluşu arasındakı əlaqəni müxtəlif nümunələr əsasında öyrənmişdir. O, göstərmişdir ki, landşaft metrikası şəhərlərin genişlənməsinin xüsusiyyətlərini və əsas proseslərini üzə çıxara bilər. Nəticə isə sürətli urbanizasiya sayəsində Pekində insan fəaliyyətinin landşaft quruluşunu köklü surətdə dəyişdiyini göstərmişdir (Li, H.; Peng, J.; Liu, Y.; Hu, Y. (2017). Urbanization impact on landscape patterns in Beijing City, China: A spatial heterogeneity perspective. Ecol. Indic. 82, 50–60). Digər bir araşdırma aparan Kim isə sahil ərazilərin iqlimlə bağlı olaraq ekstremal hadisələrdən əziyyət çəkdiyinə diqqət ayırmışdır. Bu işdə əsas hədəf sahilyanı şəhərlərdə daşqının təsirini araşdırmaq və landşaft formalarının bu daşqınlara nə qədər tab gətirəcəyini müəyyən etmək olmuşdur. Nəticədə isə sahilyanı ərazilərin dözümlülüyünün artırılması üçün müxtəlif ekosistem xidmətlərinin fəaliyyət götərməsini uyğun bilmişdir və bu xidmətlərdə müxtəlif landşaft funksiyalarının əks olunması qərarına gəlmişdir (Min, K.; Song, K.; Chon, J. (2020). Key coastal landscape patterns for reducing flood vulnerability. Sci. Total Environ. 759, 143454).

Bu məqalə peyk görüntüləri vasitəsilə landşaft xüsusiyyətlərinin qiymətləndirilməsində istifadə olunan müxtəlif üsulları araşdırır. Məsafədən Zondlama (MZ) texnologiyalarından və Coğrafi İnformasiya Sistemlərindən (CİS) istifadə etməklə, tədqiqatçılar, müvafiq qrumlar və siyasətçilər qərar

qəbuletmə proseslərini və aktual ekoloji, sosial problemləri həll etmək üçün peyk şəkillərindən dəyərli fikirlər əldə edə bilərlər. Hal-hazırda Uzaqdan Zondlama və Coğrafi İnformasiya Sistemi (GIS) texnologiyaları fotoqrammetrik uçuşlarla əldə edilən şəkillər kimi dolayı üsullardan istifadə etməklə eyni işi yerinə yetirməyə imkan verir (Vesna Rajčević, Tanja Mišlicki Tomić, Irena Medar-Tanjga, Mlađen Trifunović, Neda Živak, Aleksandra Petrašević. (2023). The Role of Landscape in Sustainable Tourism Development-A Study of Identification and Evaluation of Landscape Qualities of the Vrbanja Basin in Bosnia and Herzegovina. Sustainability, 15, 6121. https://doi.org/10.3390/su15076121)

Bu məqalədə biz aşağıdakı əsas aspektləri araşdırırıq:

Məsafədən Zondlamanın Əsasları: Yer səthinin xüsusiyyətlərini tutmaq və qeyd etmək üçün istifadə olunan platformalar və spektral zolaqlar da daxil olmaqla, məsafədən zondlama prinsipləri və peyk təsvir sistemlərinin icmalı.

Təsvirlərin əvvəlcədən işlənməsi üsulları: Analiz üçün peyk təsvirlərinin seçilməsi, müxtəlif diapazonlarda əldə olunması, birləşdirilməsi və tədqiqat ərazisi üzrə kəsilməsi kimi ilkin emal mərhələlərinin müzakirəsi.

Xüsusiyyətlərin çıxarılması və təsnifatı: Nəzarət olunan, nəzarətsiz və obyekt əsaslı təsnifat yanaşmaları daxil olmaqla, təsvirin təsnifatı üsulları vasitəsilə landşaft xüsusiyyətlərini müəyyən etmək və təsvir etmək üçün üsulların araşdırılması.

Dəyişikliklərin Aşkarlanması: Torpaq örtüyünün dinamikasının, şəhərlərin genişlənməsinin və yaşıllıq sahələrinin azaldılmasının monitorinqini həyata keçirməyə imkan verən çox zamanlı peyk görüntülərindən istifadə etməklə landşaft xüsusiyyətlərində baş verən dəyişikliklərin aşkarlanması və kəmiyyətinin müəyyən edilməsi üçün metodologiyaların tədqiqi.

Geoməkan Məlumatları ilə İnteqrasiya: Təhlilləri zənginləşdirmək və landşaft dinamikasının çoxölçülü başa düşülməsini asanlaşdırmaq üçün torpaq örtüyü xəritələri və sosial-iqtisadi məlumatlar kimi peyk görüntülərinin köməkçi coğrafi məlumat dəstləri ilə inteqrasiyası.

Tətbiqlər və Tədqiqat Nümunələri: Kənd təsərrüfatı, şəhərsalma, biomüxtəlifliyin qorunması, iqlim dəyişikliyi və digər tədqiqatlar daxil olmaqla, müxtəlif sahələrdə peyk görüntülərinin necə tətbiq olunduğuna dair nümunələr.

Peyk təsvirləri landşaftın qiymətləndirilməsinin metodologiyalarını və tətbiqlərini aydınlaşdırmaqla, bu məqalə oxucuları Yerin müşahidə olunması məlumatlarından qiymətli fikirlərin alınması üçün mövcud olan alətlər və texnikalar haqqında hərtərəfli anlayışla təchiz etmək məqsədi daşıyır. Peyk görüntülərindən istifadə edərək, biz planetimizin landşaft mürəkkəbliklərini daha yaxşı dərk edə, cari və gələcək üçün məlumatlı, davamlı idarəetmə təcrübələrini paylaşmağa doğru səy göstərə bilərik.

**TƏDQIQAT METODU**

Tədqiqat ərazisi kimi Abşeron yarımadası seçilmişdir (Şək. 1). Abşeron yarımadası Xəzər dənizinin qərb sahilində yerləşməklə, Bakı, Sumqayıt və Xırdalan şəhərlərinin əsas hissələrini əhatə edir. Abşeron yarımadasının sahəsi müxtəlif rəqəmlərlə təqdim olunsa da təxmini olaraq 2000 kv. km civarındadır (Budaqov B.Ə., Mikayılov A.A., Ömərova X.U. Azərbaycanda palçıq vulkanlarının inkişaf etdiyi rayonların landşaftı. Azərbaycan SSR EA Coğrafiya İnstitutunun fondu. Bakı, 1972. s-291. Həmzəyeva İnsaf. (2021). Abşeron yarımadası və onun əsas xüsusiyyətləri. Bakı Qızlar Universiteti, Elmi əsərlər, Cild 12 №2 (46)).

Xəzər dəzinin sahillərində yerləşdiyi üçün əlverişli iqtisadi coğrafi mövqeyə malikdir. Faydalı qazıntılarla zəngin olması, önəmli nəqliyyat yollarının üzərində yerləşməsi və mühüm strateji əhəmiyyət kəsb etməsi əlverişliliyini daha da artırır. Abşeron yarımadasının iqlim şəraiti mürəkkəb xarakterə malikdir. Yarımadanın iqlim şəraitinə ən çox təsir edən amillər Xəzər dənizi ilə Baş Qafqaz silsiləsidir. Belə ki, Xəzər dənizi yarımadanın iqlimini mülayimləşdirdiyi halda, Baş Qafqaz silsiləsi də şimaldan gələn soyuq hava kütlələrinin qarşısını kəsir. Ərazidə quru subtropik iqlim səciyyə daşıyır. Yay aylarında havanın temperaturu yüksək dərəcə təşkil etsə də, şimaldan əsən "xəzri" küləyi isti şəraiti mülayimləşdirir. Qışda isə buludluluq yüksək göstəriciyə malik olur və tez-tez yağıntı baş verir (Mehdiyeva Səadət. 2018. Abşeron yarımadasında sənaye tullantıları ilə çirklənmiş torpaqların ekoloji vəziyyəti və onların yaxşılaşdırılması tədbirlərinin araşdırılması. Magistr dissertasiyası. Azərbaycan Memarlıq və İnşaat Universiteti).

Abşeron ərazisində əsasən qonur, boz qonur, boz və şorakətli boz qonur, şoran torpaq tipləri yayılmışdır. Ərazinin çökək hissələrində qumsallar, yuxarı hissələrə qalxdıqca isə boz qonur torpaqları

üstünlük təşkil edir. Abşeronda torpaqların formalaşmasında təbii amillərlə yanaşı antropogen təsirlərdə rol oynayır. Çünki, yarımada güclü antropogen təsirə məruz qalmışdır. Belə ki, Respublikanın əsas sənaye sahələrinin yarımadada mövcudluğu buna təsir göstərir. Sənayenin çox hissəsinin burda cəmləşməsi ölkənin iqtisadiyyatına da mühüm təsir göstərir (Qurbanov Sənan. 2022. Abşeron yarımadasında aqromeliorativ tədbirlərin boz-qonur torpaqların su-fiziki xassə və rejimlərinə təsiri. Avtoreferat. Əkinçilik Elmi-Tədqiqat İnstitutu).




**Şəkil 1.** Tədqiqat ərazisi

Tədqiqat işinin aparılması üçün ödənişsiz mənbələrdən istifadə etməklə Amerika Birləşmiş Ştatları Geoloji Xidmətinin (USGS) məlumat bazasından Landsat 5 və Landsat 8 peyklərinin təsvirləri əldə olunmuşdur (Şək. 2). Peyk təsvirləri seçilərkən çəkiliş tarixləri hər 3 şəkildə bir birinə daha yaxın olan, eyni zamanda tədqiqat ərazisi üzərində bulud örtüyünün olmaması amili əsas götürülmüş və bulud örtüyü faizi 0 (sıfır) olmuşdur.

Landsat 5 peyki Yer səthini müşahidə etmək üçün 1 mart 1984-cü ildə orbitə buraxılmış və 5 iyun 2013-cü ilə qədər fəaliyyət göstərmişdir. Peyk ABŞ Geoloji Tədqiqat (USGS) və Milli Aeronavtika və Kosmos İdarəsi (NASA) tərəfindən birgə idarə olunmuşdu. Alınan məlumatlar isə USGS-nin Yer Resurslarının Müşahidə və Elm Mərkəzindən (EROS) toplanmış və paylanmışdır. Landsat 8 peyki isə 11 fevral 2013-cü ildə orbitə buraxılmış və hal-hazırda fəaliyyət göstərməkdədir. Bu peykdə əlavə olaraq Yer səthinin temperaturunu, qlobal istiləşməni öyrənmək üçün Operativ Land Imager (OLI) və Termal İnfraqırmızı Sensorun (TIRS) kameraları vardır.




**Şəkil 2.** Əldə olunmuş peyk təsvirləri

Əldə olunmuş peyk təsvirlərinin metadata-ları haqqında məlumatlar aşağıdakı cədvəldə göstərilmişdir.

***Cədvəl 1. Peyk təsvirlərinin metadata göstəriciləri***

| Məlumat yığımının atributu | Şəkillər | | |
|---|---|---|---|
| | 1 | 2 | 3 |
| Ümumdünya İstinad Sistemi (ÜİS) sütun | 166 | | |
| ÜİS sətir | 032 | | |
| Çəkiliş tarixi | 31/07/1988 | 30/07/2008 | 09/08/2023 |
| Diapazonların sayı | 7 | | 11 |
| Mübadilə formatı | GEOTIFF | | |
| Datum və ellipsoid | WGS84 | | |
| UTM Zona | 39 | | |

***Mənbə:*** *Amerika Birləşmiş Ştatları Geoloji Xidmətinin (USGS) məlumat bazası.*

Peyk təsvirləri vasitəsilə landşaft xüsusiyyətlərini müəyyən etmək üçün bir çox metodlar mövcuddur (Siart, K. & Eitel, B. & Panagiotopoulos, D. (2008). Investigation of past archaeological landscapes using remote sensing and GIS: a multi-method case study from Mount Ida, Crete. The Journal of Archaeological Science, 2918-2926). Lakin, tədqiqat işində əsasən Təsvirlərin Təsnifatlaşdırılması metodundan istifadə olunmuşdur. Təsvirlərin təsnifatlaşdırılmasında tətbiq olunan "Iso Cluster Unsupervised Classification" metodu məsafədən zondlama və təsvirlərin təhlilində istifadə edilən nəzarətsiz təsnifat alqoritmidir. Alqoritm, peyk təsvirlərindəki pikselləri təlim məlumatlarına və ya əvvəlcədən müəyyən edilmiş siniflərə bölmədən spektral oxşarlığına əsaslanaraq qruplaşdırmaq üçün istifadə olunur (Ball, G. H., and D. J. Hall. 1965. *A Novel Method of Data Analysis and Pattern Classification.* Menlo Park, California: Stanford Research Institute. Richards, J. A. 1986. *Remote Sensing Digital Image Analysis: An Introduction.*. Berlin: Springer–Verlag).

İlkin olaraq təsvirlər tədqiqat ərazisinin sərhəddi boyu kəsilmiş, sonra isə təsnifatlaşdırılmışdır. Hər iki proses ArcGIS proqram təminatı vasitəsilə yerinə yetirilmiş və model sxemi qrulmuşdur (Şək. 3).




**Şəkil 3.** Peyk təsvirlərinin emal modeli

Peyk təsvirləri vasitəsilə 4 sinif üzrə təsnifatlaşdırma həyata keçirilmiş və 3 raster əldə olunmuşdur (şək. 4). Bildiyimiz kimi raster məlumatlardan sahələrin hesablanması çətin olduğu üçün mövcud verilənlərin çevrilməsinə ehtiyac vardır. Belə ki, ArcGIS proqram təminatının imkanlarından istifadə edərək (ArcToolbox, Conversion Tools, Raster to Polygon) hər 3 raster fayl sahəvi (polygon) obyektə çevrilmişdir.




**Şəkil 4.** Təsvirlərin təsnifatlaşdırılması

Sahəvi qatlara çevrilmiş siniflər üzrə mövcud sahələr cəmlənmiş və aşağıdakı cədvəldə təqdim olunmuşdur.

***Cədvəl 2. Siniflər üzrə təsnifatlaşdırmanın illər üzrə ümumi göstəriciləri***

| | **Siniflər** | **Peyk təsvirləri** | | |
|---|---|---|---|---|
| | | **31 İyul 1988** | **14 İyul 2008** | **13 İyul 2022** |
| | | Təsnifatlaşdırma. kv. km. | | |
| | Su hövzələri | 96.7 | 78.4 | 57 |
| | Yaşayış sahələri | 283.8 | 340.1 | 369.5 |
| | Yaşıllıqlar | 1058.1 | 1153.4 | 1047.7 |
| | Yararsız ərazilər | 541.4 | 408.1 | 505.8 |

***Mənbə:*** *Müəlliflər*

Cədvəldən də göründüyü kimi üç dövr ərzində (1988, 2008 və 2022) peyk şəkillərinin təsnifatında müşahidə edilən dəyişikliklər landşaftın dinamikası haqqında dəyərli fikirlər verir. Hər bir torpaq örtüyü sinfində müşahidə olunan tendensiyaları təhlil edək:

Su hövzələrinin əhatə etdiyi ərazi 1988-ci ildəki 96.7 kv.km-dən 2008-ci ildə 78.4 kv.km-ə, 2022-ci ildə isə daha da azalaraq 57 kv.km-ə düşüb. Zamanla su sahəsinin azalması urbanizasiya, torpaq inkişafı, hidroloji modellərdə dəyişikliklər və ya su obyektlərinə təsir edən ətraf mühitin deqradasiyası kimi amillərlə əlaqələndirilə bilər. Meliorasiya, infrastrukturun inkişafı və suyun çıxarılması kimi insan fəaliyyəti su sahəsinin azalmasına təsir edə bilər.

Yaşayış sahələrinin əhatə etdiyi ərazi 1988-ci ildəki 283.8 kv.km-dən 2008-ci ildə 340.1 kv.km-ə, 2022-ci ildə isə 369.5 kv.km- qədər artmışdır. Bu dəyişikli tədqiq olunan ərazidə sürətli urbanizasiya və əhalinin artımını göstərir. Bu genişlənməyə təkan verən amillər kənd yerlərindən şəhərlərə miqrasiya, iqtisadi inkişaf və infrastruktur layihələri ola bilər. Torpaqdan istifadə siyasətləri, rayonlaşdırma qaydaları və şəhərsalma qərarları, ehtimal ki, yaşayış sahələrinin inkişafının məkan bölgüsünə və həcminə təsir göstərmişdir.

Yaşıllıqla örtülmüş ərazi üç dövr ərzində dəyişərək, 1988-ci ildəki 1058.1 kv.km-dən 2008-ci ildə 1153.4 kv.km-ə qədər artıb, 2022-ci ildə isə 1047.7 kv.km-ə qədər azalıb. Yaşıllıq sahəsindəki dalğalanmalara torpaqdan istifadənin dəyişməsi, bitki örtüyünün dinamikası, iqlim dəyişkənliyi və insan fəaliyyəti kimi amillər təsir edə bilər. Meşələrin qırılması, meşələrin salınması, kənd təsərrüfatının genişləndirilməsi və bitki örtüyünün bərpası kimi təbii proseslər zamanla yaşıllıq sahəsində dəyişikliklərə kömək edə bilər.

Yararsız və boş ərazilərin əhatə etdiyi yerlər isə 1988-ci ildəki 541.4 kv. km-dən 2008-ci ildə 408.1 kv.km-ə qədər azalmış və sonra 2022-ci ildə 505.8 kv.km-ə yüksəlmişdir. Çöl sahələrindəki bu dəyişikliklər torpaq idarəçiliyi təcrübələrində, torpaqdan istifadənin dəyişdirilməsi, ekosistemin pozulması və ya təbii regenerasiya proseslərindəki dəyişiklikləri əks etdirə bilər. Torpağın bərpası, meşələrin salınması və ya şəhərin yenidən qurulmasına yönəlmiş səylər boş ərazilərin dinamikasına təsir göstərə bilər.

Ümumilikdə, üç dövr ərzində torpaq örtüyü siniflərində müşahidə edilən dəyişikliklər insan fəaliyyəti ilə landşaftı formalaşdıran təbii proseslər arasında mürəkkəb qarşılıqlı əlaqəni vurğulayır. Bu dinamikanın başa düşülməsi tədqiqat sahəsində səmərəli torpaq idarəçiliyi, ətraf mühitin mühafizəsi və davamlı inkişafın planlaşdırılması üçün vacibdir. Bu dəyişikliklərin əsas səbəblərini və nəticələrini müəyyən etmək və müvafiq olaraq qərar qəbuletmə proseslərində istifadə etmək üçün əlavə təhlil və araşdırmaya ehtiyac yarada bilər.

**NƏTICƏ**

Bu araşdırmada üç fərqli tarixdə çəkilmiş peyk görüntülərindən istifadə edərək landşaft dinamikasının hərtərəfli təhlilini apardıq. Təsnifat üsullarının tətbiqi vasitəsilə biz müxtəlif landşaft xüsusiyyətlərində müvəqqəti dəyişikliklərlə bağlı dəyərli fikirlər əldə etdik.

Əldə etdiyimiz tapıntılar müşahidə dövründə tədqiqat sahəsində əhəmiyyətli dəyişiklikləri ortaya qoyur. Konkret olaraq, biz şəhərlərin genişlənməsini və əhalinin artımını göstərən yaşayış binalarının ərazisində nəzərəçarpacaq artım müşahidə etdik. Bu genişlənmə təbii torpaq örtüyünün, o cümlədən yaşıllıq sahələrinin və bitki örtüyünün yaşayış sahələrinə çevrilməsi ilə nəticələndi. Yaşayış zonalarının çoxalması ətraf mühitin mühafizəsi səyləri ilə inkişafı tarazlaşdırmaq üçün səmərəli şəhərsalma və torpaq idarəetmə strategiyalarının vacibliyini vurğulayır.

Yaşayış sahələrinin genişlənməsi ilə yanaşı, bizim təhlilimiz tədqiqat sahəsi daxilində göllərin və su obyektlərinin miqyasında azalma da müəyyən etdi. Bu azalma urbanizasiya, torpaqdan istifadə dəyişiklikləri və su ekosistemlərinə təsir edən potensial ekoloji stressorlar kimi amillərlə əlaqələndirilə bilər. Su ehtiyatlarının itirilməsi şirin su ekosistemlərini qorumaq və gələcək nəsillər üçün su ehtiyatlarının mövcudluğunu təmin etmək üçün davamlı su idarəetmə təcrübələrinə və mühafizə təşəbbüslərinə ehtiyacı vurğulayır.

Bundan əlavə, tədqiqat sahəsi boyunca bitki örtüyünün azaldığı aşkar edildi. Yaşıllığın bu azalması urbanizasiya, meşələrin qırılması, kənd təsərrüfatının genişləndirilməsi və ya digər antropogen fəaliyyətlər üçün torpaqların çevrilməsi ilə əlaqələndirilə bilər. Bitki örtüyünün azaldılması ekosistemin sağlamlığı, biomüxtəliflik və ekosistem xidmətləri üçün təsir göstərir, yaşayış mühitinin itkisini azaltmaq və ekosistemin dayanıqlığını artırmaq üçün mühafizə səylərinin və meşəbərpa proqramlarının əhəmiyyətini vurğulayır.

Yekun olaraq, peyk şəkillərinin təhlili landşaftların dinamik xarakterini aydınlaşdırdı və insan fəaliyyətinin və ətraf mühitdəki dəyişikliklərin qarşılıqlı əlaqəsini vurğuladı. Yaşayış yerlərində müşahidə olunan artım, göllərin və yaşıllıqların azalması davamlı inkişafı dəstəkləmək və indiki və gələcək nəsillər üçün ekosistemlərin bütövlüyünü qorumaq üçün torpaq idarəçiliyi, şəhərsalma və ətraf mühitin mühafizəsinə vahid yanaşmaların qəbul edilməsinin vacibliyini vurğulayır.

**ƏDƏBIYYAT SIYAHISI**

Linda Jridi, Chariton Kalaitzidis and Dimitrios D. Alexakis. (2023) Quantitative Landscape Analysis Using Earth-Observation Data: An Example from Chania, Crete, Greece. Land, 12, 999. https://doi.org/10.3390/land12050999.

Yuxia Zhao, Yang Wang, Zifan Zhang, Yi Zhou, Haoqing Huang and Ming Chang. (2023). The Evolution of Landscape Patterns and Its Ecological Effects of Open-Pit Mining: A Case Study in the Heidaigou Mining Area, China. International Journal of Environmental Research and Public Health, 20, 4394. https://doi.org/10.3390/ijerph20054394.

Linda Jridi, Chariton Kalaitzidis and Dimitrios D. Alexakis. (2023) Quantitative Landscape Analysis Using Earth-Observation Data: An Example from Chania, Crete, Greece. Land, 12, 999. https://doi.org/10.3390/land12050999.

Klepers, A., & Lakovskis, P. (2022). Identification of landscapes of national importance using GIS. Socıety Technology Solutıons Proceedings of the International Scientific Conference.

Choudhary, K.; Boori, M.S.; Kupriyanov, A. (2018). Spatial modelling for natural and environmental vulnerability through remote sensing and gis in Astrakhan, Russia. Egypt. J. Remote Sens. Space Sci. 21, 139–147.

Li, H.; Peng, J.; Liu, Y.; Hu, Y. (2017). Urbanization impact on landscape patterns in Beijing City, China: A spatial heterogeneity perspective. Ecol. Indic. 82, 50–60.

Min, K.; Song, K.; Chon, J. (2020). Key coastal landscape patterns for reducing flood vulnerability. Sci. Total Environ. 759, 143454.

Vesna Rajčević, Tanja Mišlicki Tomić, Irena Medar-Tanjga, Mlađen Trifunović, Neda Živak, Aleksandra Petrašević. (2023). The Role of Landscape in Sustainable Tourism Development-A Study of Identification and Evaluation of Landscape Qualities of the Vrbanja Basin in Bosnia and Herzegovina. Sustainability, 15, 6121. https://doi.org/10.3390/su15076121.

Budaqov B.Ə., Mikayılov A.A., Ömərova X.U. Azərbaycanda palçıq vulkanlarının inkişaf etdiyi rayonların landşaftı. Azərbaycan SSR EA Coğrafiya İnstitutunun fondu. Bakı, 1972. s-291.

Həmzəyeva İnsaf. (2021). Abşeron yarımadası və onun əsas xüsusiyyətləri. Bakı Qızlar Universiteti, Elmi əsərlər, Cild 12 №2 (46).

Mehdiyeva Səadət. 2018. Abşeron yarımadasında sənaye tullantıları ilə çirklənmiş torpaqların ekoloji vəziyyəti və onların yaxşılaşdırılması tədbirlərinin araşdırılması. Magistr dissertasiyası. Azərbaycan Memarlıq və İnşaat Universiteti.

Qurbanov Sənan. 2022. Abşeron yarımadasında aqromeliorativ tədbirlərin boz-qonur torpaqların su-fiziki xassə və rejimlərinə təsiri. Avtoreferat. Əkinçilik Elmi-Tədqiqat İnstitutu.

Siart, K. & Eitel, B. & Panagiotopoulos, D. (2008). Investigation of past archaeological landscapes using remote sensing and GIS: a multi-method case study from Mount Ida, Crete. The Journal of Archaeological Science, 2918-2926.

Ball, G. H., and D. J. Hall. 1965. *A Novel Method of Data Analysis and Pattern Classification*. Menlo Park, California: Stanford Research Institute.

Richards, J. A. 1986. *Remote Sensing Digital Image Analysis: An Introduction.*. Berlin: Springer–Verlag.

# YERİN MÜŞAHİDƏ MƏLUMATLARINDAN İSTİFADƏ EDƏRƏK LANDŞAFT TƏHLİLİ

**TÜRKAN ABBASOVA**

Bakı Mühəndislik Universiteti
Memarlıq və inşaat fakültəsi/Sənaye mühəndisliyi
*tabbasova2@std.beu.edu.az*
XIRDALAN, AZƏRBAYCAN

**XÜLASƏ**

Təbii və antropogen dəyişikliklərin təsiri altında dayanıqlılığa nail olmaq dövrün əsas problemlərindəndir.Bu dayanıqlılığa nail olmaq üçün insanlarla ətraf mühit arasında uyğun tarazlığı qorumaq lazımdır.Torpaqdan istifadənin və landşaft nümunələrinin təkamül tendensiyasının qiymətləndirilməsi və simulyasiyası regional strategiyanın həyata keçirilməsi kontekstində mühüm əhəmiyyət kəsb edir Bu prosesin əsasını landşaft anlayışı təşkil edir.Belə ki, landşaftın müxtəlif aspektlərinin və onların komponentlərinin qiymətləndirilməsi siyasətinin hazırlanması, planlaşdırılması və idarə olunması üçün çox vacibdir. Landşaft keyfiyyətinin qiymətləndirilməsi araşdırma aparan bütün tədqiqatçıların maraq dairəsində olmuşdur.Tədqiqat işində bir sıra kəmiyyət məkan göstəricilərindən istifadə etməklə təhlillər aparılmışdır. Ümumi metodologiya torpaqdan istifadə və örtük dəyişikliklərinin GİS və yerin müşahidə məlumatlarından istifadə etməklə tədqiqinə əsaslanır.

**ABSTRACT**

Achieving sustainability under the influence of natural and anthropogenic changes is one of the main problems of the era. In order to achieve this sustainability, it is necessary to maintain a suitable balance between people and the environment. The assessment and simulation of the evolutionary trend of land use and landscape patterns is of great importance in the context of the implementation of regional strategy. The basis of this process is the landscape Thus, the assessment of various aspects of the landscape and their components is very important for policy development, planning and

management. The assessment of landscape quality has been of interest to all the researchers conducting the research. In the research work, analyzes were carried out using a number of quantitative spatial indicators. The overall methodology is based on the study of land use and land cover changes using GIS and ground observation data.

**AÇAR SÖZLƏR: Landşaft keyfiyyəti, göstəricilər, geoməkan məlumatları**
**KEY WORDS: Landscape quality, indicators, geospatial data**

## GIRIŞ

"Landşaft" sözü 13-cü əsrə aiddir və alman dillərindən götürülmüşdür. O, ilk dəfə Hollandiyada torpaq, bölgə və ya ətraf mühitə istinad etmək üçün landşaft və lantscap kimi istifadə edilmişdir. Sonralar isə landşaftın mənası "mənzərə" mənasında dəyişdi. (Antrop, M. *A brief history of landscape research. In The Routledge Companion to Landscape Studies;* Howard, P., Thompson, I., Waterton, E., Eds.; Routledge: London, UK, 2013; pp. 12–22)

Yeri müşahidə texnologiyasının inkişafı ilə, bir çox məlumat, geniş diapazon, sürətli yeniləmə və uzun müddət məlumatların monitorinqi kimi xüsusiyyətlərindən istifadə etməklə, tədqiqat sahəsindəki torpaqdan istifadə dəyişiklikləri vaxtında və effektiv şəkildə aşkar edilə bilər. Daha incə və daha yüksək dəqiqlikli təsvir texnologiyalarının yaranması torpaqdan istifadə növünün təsnifatının artan dəqiqliyinə və torpaqdan istifadə dəyişikliklərinin daha dəqiq aşkarlanmasına səbəb olmuşdur. Son illərdə müxtəlif ölkələrdən olan alimlər torpaqdan istifadənin dəyişməsi, landşaft modelinin təkamülü və ekoloji təsirlərə dair çoxlu tədqiqatlar aparmışlar.(Zhuao, Y. *The Evolution of Landscape Patterns and Its Ecological Effects of Open-Pit Mining: A Case Study in the Heidaigou Mining Area, China.* International Journal of Environmental Research and Public Health,2023)

Landşaftın görünməsi landşaftın mühafizəsi planlaşdırılmasının mühüm aspektidir, çünki landşaftın görünmə dərəcəsindən asılı olaraq torpaqdan istifadəni və insan fəaliyyətini tənzimləmək üçün müxtəlif qaydalar və ya normalar müəyyən edilə bilər. Landşaftın hansı hissələrinin müəyyən nöqtələrdən və ya landşaftda yerləşən və ya hərəkət edən insanlar tərəfindən görülə biləcəyini qiymətləndirmək üçün ümumi GIS əsaslı yanaşmalardır.Təklif olunan normaların məkan bölgüsü xəritələri milli səviyyədə landşaftın mühafizəsinin planlaşdırılması proseslərinə dəstək vermək üçün potensial şəhər inkişafı tendensiyaları ilə uyğunluq və ya ziddiyyətlərin mümkün vəziyyətlərini müəyyən edir. Coğrafi məlumat dəstlərinin məhdud istifadəsi sayəsində metod digər müxtəlif coğrafi kontekstlərə yüksək ötürülmə qabiliyyətini təmin edir və böyük milli kontekstlər üçün planlaşdırma göstəricilərini əldə etməyə imkan verir. (La Rosa D, Izakovičová Z. Visibility Analysis to Enhance Landscape Protection: A Proposal of Planning Norms and Regulations for Slovakia. Land. 2022; 11(7):977. https://doi.org/10.3390/land11070977)

Landşaft nümunələri haqqında biliklər landşaft funksiyalarını daha yaxşı başa düşməyə və idarəetmə və planlaşdırma qərarlarının səmərəliliyini və kifayət qədərliyini daha yaxşı qiymətləndirməyə imkan verir. Landşaft ölçüləri landşaft strukturunu və mürəkkəbliyini ölçmək üçün səmərəli vasitədir. Ümumiyyətlə, landşaft ölçüləri landşaftın məkan tərkibinin və konfiqurasiyasının təsviri və ölçülməsinə imkan verən alqoritmlərdir. GIS coğrafi məlumatları əldə etməyə, saxlamağa, manipulyasiya etməyə, təhlil etməyə və vizuallaşdırmağa imkan verir. 1960-cı ildən ilk operativ GIS-in inkişafı ilə, yəni Kanadanın Coğrafi İnformasiya Sisteminin (Tomlinson və Toomey, 1999) inkişafı ilə insanlar GİS-dən istifadə edərək, sanki müxtəlif görünən məlumat dəstlərini bir-birinə birləşdirir və yeni məlumatlar yaradırlar, həmçinin mürəkkəb spatial analizlər həyata keçirirlər və nəticədə yeni biliklər əldə edirlər.(Rissetto, H. *What can GIS + 3D mean for landscape archaeology?.* The Journal of Archaeological Science, 2017, Pages 10-21, https://doi.org/10.1016/j.jas.2017.05.005).

Bu torpaqdan istifadə dəyişiklikləri məkan paylanmasına və zamana birbaşa təsir göstərir. Beləliklə, torpaqdan istifadə və torpaq örtüyü səthin temperaturuna əhəmiyyətli dərəcədə təsir göstərir və səth şəraitindən güclü şəkildə asılıdır.(Rahimi, A.; Khalil, Z.; Bouasria, A.; Mjiri, I.E.; Bounif, M. Land Surface Temperature Responses to Land Use Land Cover Dynamics (District of Taroudant, Morocco). Biol. Life Sci. Forum 2021, 3, 28. https://doi.org/10.3390/IECAG2021-09726)

## TƏDQİQAT METODU

Tədqiqat ərazisi olaraq Abşeron yarımadası seçilmişdir. Abşeron yarımadası ölkənin ən böyük və əhalisi ən çox əhalisi olan Bakı şəhərinin yerləşdiyi ərazidir Sumqayıt isə peyk şəhərdir.

Şərqə doğru 60 km məsafədə Xəzər dənizinə qədər uzanır və maksimal eni 30 km-ə çatır. Qafqaz dağl Abşeron yarımadasının geomorfologiyası, relyefi, iqlimi, hidrogeologiyası, geoloji quruluşu, torpaq və bitki örtükləri Azərbaycanın digər təbii-iqlim zonaları ilə müqayisədə özünəməxsusluğu ilə fərqlənir. Yarımada dörd hissəyə - şimal, cənub, şərq və şimal-qərb hissələrinə ayrılır. Şimal-şərq hissəyə dəniz səviyyəsindən 340-350 m yüksəklikdə yerləşən qayalıqlar və dağlıq ərazilər daxildir. Şimal hissə qumsal və gilli süxurlarla təmsil olunmuş dalğavari relyefə malik olan əraziləri əhatə edir. Cənub hissəyə palçıq vulkanlarının yayıldığı və əhəng daşları ilə zəngin olan Güzdək yaylası daxildir. Şərq hissədə dəniz səviyyəsindən aşağıda yerləşən nisbətən düzənlik ərazilər yayılmışdır.Böyük Qafqaz dağlarının şərqə doğru uzanmasıdır, lakin landşaftı mülayim təpəlikdir. (Qurbanov Sənan. 2022. Abşeron yarımadasında aqromeliorativ tədbirlərin boz-qonur torpaqların su-fiziki xassə və rejimlərinə təsiri. Avtoreferat. Əkinçilik Elmi-Tədqiqat İnstitutu.)

Abşeron yarımadasının müasir torpaq strukturunun vəziyyəti göstərir ki, ərazinin yararlı torpaq sahələri geniş miqyasda təbii və antropogen amillərin təsirinə məruz qalmış və müxtəlif dərəcədə çirklənmişdir. Bu amillər nəinki torpaqların səthi və eləcə də dərininə çirklənməsinə, eyni zamanda onların morfolojı-genetik xüsusiyyətlərinin və fiziki-kimyəvi xassələrinin dəyişməsinə, münbitlik göstəricilərinə mənfi təsir göstərmişdir. Abşeron yarımadasında boz-qonur və boz torpaqların növləri yayılmışdır. Mexaniki tərkibinə görə torpaqlar: qumlu, gillicəli və ağır gillidirlər.( Həmzəyeva İnsaf. (2021). Abşeron yarımadası və onun əsas xüsusiyyətləri. Bakı Qızlar Universiteti, Elmi əsərlər, Cild 12 №2 (46)).

Landşaftın fiziki xüsusiyyətlərinin qiymətləndirilməsi landşaftın mühafizəsinə yönəlmiş cari tətbiqi landşaft tədqiqatlarının müvafiq aspektidir. Görünüş və ya baxış təhlili müxtəlif sahələrdə tətbiq olunan bir çox GIS proqramında ümumi olan alətlərdir. Görünmə vasitələrinin əsas məqsədi landşaftın verilmiş nöqtələr və ya xətti xüsusiyyətlər (yəni, yollar və ya cığırlar) ilə görünə bilən hissələrini, əsasən əraziyə təsir edən ərazi və digər fiziki xüsusiyyətlərdən (bitki örtüyü, binalar və infrastruktur) müəyyən etməkdir. nə qədər mənzərəni qəbul etmək olar.

Çox insan fəaliyyəti landşaftın modifikasiyası ilə nəticələndiyindən, görmə qabiliyyətinin təhlili bu cür transformasiyaların landşaftın fərdlər tərəfindən necə qəbul edilməsinə təsirini simulyasiya edə bilər. Bu, transformasiyaların təsirinin sakinləri və ya landşaftdan zövq alan digər sosial subyektləri narahat edə biləcəyi ərazilərdə mühüm məsələdir.Burada təbiətin və landşaftın mühafizəsi yalnız biotanın mühafizəsinə yönəlib və bu ərazilərin heç biri fiziki landşaft strukturlarının mühafizəsi elan edilməyib. Buna görə də görünən qiymətli landşaft strukturlarının gücləndirilməsi, xüsusilə son 30 ildə bütün ölkədə qeydə alınan şəhər inkişafının təzyiqinin artmasından sonra qorunan ərazilərin sayını artırmaq üçün vacibdir.




**Şəkil 1.** Tədqiqat ərazisi

**NƏTICƏ**

Abşeron yarımadası həm fiziki həm də iqtisadi baxımdan təbii və antropogen təsirlərə məruz qalmışdır. Milli səviyyədə landşaftın görünməsi şəhər və infrastrukturun inkişafı ilə bağlı müxtəlif növ dəyişikliklərdən qorunmaq üçün vacib xüsusiyyətdir. Bu cür dəyişikliklər landşaftın vizual

keyfiyyətini kəskin şəkildə dəyişdirə və bəzi hallarda hətta bəzi landşaft xüsusiyyətlərini insanların nəzərindən kənarlaşdıra bilər. Buna görə də landşaftın mühüm və çox uyğun hissəsini itirməmək üçün norma və qaydalara ehtiyac var. Normalara mümkün landşaft dəyişiklikləri ilə bağlı bəzi məhdudiyyətlər daxildir, xüsusən də icazə verilən şəhərsalma növünə və yeni tikililərin hündürlüyünə istinad edilir: bu dəyişikliklər landşaftın görünməsinə potensial mənfi təsir göstərə bilər, yəni görməli yerlərin xəttini kəsir və buna görə də bəzi dəyişiklikləri istisna edir.

Ekoloji həssaslığın tədqiqi vasitəsilə biz regional ekoloji mühitin əlaqələndirilmiş inkişafı istiqamətini göstərə və ekoloji mühitə insan amillərinin müdaxiləsini azalda bilərik ki, davamlı inkişaf mümkün olsun.

Ekosistem təbiətdən və insanlardan gələn təzyiqlərə tab gətirə bildikdə güclü və sabitdir; əks halda həssaslaşacaq və daha da pisləşəcək. Təsir faktorları daxili və xarici həssaslıqlar kimi təsnif edilə bilər.

**ƏDƏBIYYAT SIYAHISI**

Həmzəyeva İnsaf. (2021). Abşeron yarımadası və onun əsas xüsusiyyətləri. Bakı Qızlar Universiteti, Elmi əsərlər, Cild 12 №2 (46).

Mehdiyeva Səadət. 2018. Abşeron yarımadasında sənaye tullantıları ilə çirklənmiş torpaqların ekoloji vəziyyəti və onların yaxşılaşdırılması tədbirlərinin araşdırılması. Magistr dissertasiyası. Azərbaycan Memarlıq və İnşaat Universiteti.

Qurbanov Sənan. 2022. Abşeron yarımadasında aqromeliorativ tədbirlərin boz-qonur torpaqların su-fiziki xassə və rejimlərinə təsiri. Avtoreferat. Əkinçilik Elmi-Tədqiqat İnstitutu.

Qurbanov Veis Aydın oğlu. "Böyük Qafqazın şimal-şərq və cənub-qərb yamaclarında təbii dağıdıcı proseslərin yaratdığı ekoloji probləmlər və onlara qarşı mühafizə tədbirləri" Arxivləşdirilib 2018-09-20 at the Wayback Machine.Bakı- 2015. səh: 9

Antrop, M. A brief history of landscape research. In The Routledge Companion to Landscape Studies; Howard, P., Thompson, I., Waterton, E., Eds.; Routledge: London, UK, 2013; pp. 12–22

Zhuao, Y. The Evolution of Landscape Patterns and Its Ecological Effects of Open-Pit Mining: A Case Study in the Heidaigou Mining Area, China. International Journal of Environmental Research and Public Health,2023

La Rosa D, Izakovičová Z. Visibility Analysis to Enhance Landscape Protection: A Proposal of Planning Norms and Regulations for Slovakia. Land. 2022; 11(7):977. https://doi.org/10.3390/land11070977

Rissetto, H. What can GIS + 3D mean for landscape archaeology?. The Journal of Archaeological Science, 2017, Pages 10-21, https://doi.org/10.1016/j.jas.2017.05.005

Rahimi, A.; Khalil, Z.; Bouasria, A.; Mjiri, I.E.; Bounif, M. Land Surface Temperature Responses to Land Use Land Cover Dynamics (District of Taroudant, Morocco). Biol. Life Sci. Forum 2021, 3, 28. https://doi.org/10.3390/IECAG2021-09726

# YENİ SİNTEZ OLUNMUŞ KİMYƏVİ AGENTİN TİLAKOİD MEMBRANLARIN FOTOSİNTETİK ELEKTRON NƏQLİYYAT ZƏNCİRİNƏ TƏSİRİ

**VÜSALƏ SALMANOVA[1], MEHRİBAN ŞABANOVA[2], ROMAN VOLOŞİN [3]**

*[1]Bakı Dövlət Universiteti*
*[2]Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Molekulyar Biologiya və Biotexnologiya İnstitutu*
*[3]K.A Timiryazev adına Bitki Fiziologiyası İnstitutu,Moskva/Rusiya*
Biologiya,Azərbaycan
vusala_salmanova02@mail.ru
Bakı,Azərbaycan

## XÜLASƏ

Hal-hazırda kənd təsərrüfatında iqtisadi cəhətdən əhəmiyyətli bitkilərin sağ qalmasını təmin edən yeni yanaşmalar inkişaf etdirilir. Eyni zamanda arzuolunmaz bitki növlərinin böyüməsinə maneə yaradan müasir kimyəvi maddələrlə işlənməsində yeni yanaşmalar inkişaf etdirilir və tətbiq olunur. Bu yanaşmalar eyni zamanda fərqli kimyəvi maddələrin— yeni, ekoloji cəhətdən təmiz olan fərqli birləşmələrin təsir mexanizmlərinin müəyyən edilməsi və öyrənilməsidir. Kimyəvi agentin təsirini öyrənmək üçün ispanaq yarpaqlarından istifadə olunmuşdur. İspanaq yarpaqları FSII olan tilakoidlərdən ayrılmışdır. FSII-nin aktivliyinin azalmasına səbəb kimyəvi agentin reaksiya mərkəzinə olan təsirini ehtimal etmək olar. Alaq otlarına qarşı mübarizə aparmaq üçün istifadə edilən böyük bir müasir agent qrupunun təsir mexanizmi elektron-nəqliyyat zəncirinin bu və ya digər yerində fotosintezin işıq mərhələsində elektron ötürülməsini maneə törədir. $C_{46}H_{49}BN_6O$ kompleksinin təsiri ispanaqdan təcrid olunmuş PSII membranlarının aktivliyinə dair kompleks (Subftalosiyanin kompleksi) fotosintetik oksigen təkamülü öyrənilmişdir. Eləcə də QA plastokinonun, PSII ilkin elektron qəbuledici quinonun fotoreduksiyası ilə bağlı PSII xlorofil fluoresans məhsuldarlığında öyrənilmişdir. $C_{46}H_{49}BN_6O$ -nun PSII fotokimyəvi fəaliyyətini inhibə etdiyini göstəririk. Hər iki xarakterik PSII fotoreaksiyasının eyni oxşar effektivliyi ilə basdırılması aşkar edilir. $C_{46}H_{49}BN_6O$ $F_M$ səviyyəsini yalnız $F_V$ hesabına azaldır; nə $F_0$ səviyyəsində olan dəyişikliklərə, nə də $F_M$ səviyyəsində baş verən fotoinduksiya edilmiş yüksəlişin gecikməsinə səbəb olur. Süni elektron donorları $C_{46}H_{49}BN_6O$ -nun inhibitor təsirini ləğv etmir. Çox güman ki, donor tərəfdə və ya onun komponentləri arasında bir yerə daxil olan $C_{46}H_{49}BN_6O$ təbii elektron iaənisini maneə törədir. Və/yaxud ləngidir. Və/yaxud RC üçün ekzogen olan elektron donoru kimi xidmət edir. Beləliklə, PSII reaksiya mərkəzinin komponentləri çox güman ki, $C_{46}H_{49}BN_6O$ inhibitor fəaliyyətinin əsas hədəfidir.

**Açar sözlər: Fotosistem II, kimyəvi agent, reaksiya mərkəzi, flüoresensiya, oksigen**

**Effect of new synthesized chemical agent on the photosynthetic electron transport chain of thylakoid membranes**

**Abstract**

Currently, in agriculture, new approaches are being developed and applied in processing with modern chemicals that ensure the survival of econimically important plants and prevent the growth of unwanted plant species. These approaches are also the identification and study of the mechanisms of action of new, environmentally friendly combinations of different chemicals. Spinach leaves isolated from thylakoids containing PSII. It can be assumedthat the effrct of the chemical agent on the reaction center caused the decrease in the activity of PSII. The mechanism of action of a large group of modern agent used for weed control inhibits electron transfer in the light stage of photosynthesis at one or another site of the electron-transport chain. Impact of the novel $C_{46}H_{49}BN_6O$ complex (Subphthalocyanine complex) on the activity of PSII membranes isolated from spinach were studied by of photosynthetic oxygen evolution as well as changes in the PSII chlorophyll fluorescence yield ($F_v$) related to photoreduction of the $Q_A$ plastoquinone, the PSII primary quinone electron acceptor. We show that $C_{46}H_{49}BN_6O$ effectively inhibits PSII photochemical activity as revealed by suppression of

both the characteristic PSII photoreactions with the same similar effectiveness. $C_{46}$ $H_{49}BN_6$ O decreases $F_M$ level exclusively at the expense of $F_V$ ; causes neither changes in the $F_0$ level nor the retardation of the photoinduced rise in $F_M$ . Artificial electron donors do not cancel the inhibitory effect of $C_{46}$ $H_{49}$ $BN_6O$. It is likely that $C_{46}H_{49}BN_6O$, which is included somewhere on the donor side or between its components, inhibits and/or slows down natural electron donation and/or serves as an exogenous electron donor for RC. Thus, the PSII reaction center's components are most likely the major target of $C_{46}H_{49}BN_6O$ inhibitory activity.

**Keywords: Photosystem II, chemical agent, reaction center, fluorescence, oxygen**

Hal-hazırda kənd təsərrüfatında iqtisadi cəhətdən əhəmiyyətli (genetik cəhətdən dəyişdirilmiş) bitkilərin sağ qalmasını seçici şəkildə təmin edən və arzuolunmaz bitki növlərinin böyüməsinə və inkişafına effektiv şəkildə maneə törədən müasir kimyəvi maddələrlə işlənməsində yeni yanaşmalar intensiv şəkildə inkişaf etdirilir və tətbiq olunur.

Bu yanaşmaların digər tərəfi müxtəlif kimyəvi maddələrin — yeni, daha səmərəli, daha ekoloji cəhətdən təmiz olan fərqli birləşmələrin təsir mexanizmlərinin müəyyənləşdirilməsi və öyrənilməsidir. Bundan əlavə, bu aşkar edilə bilən kimyəvi maddələr, unikal xüsusiyyətlərə malik elektron inhibitorları, akseptorları və ya donorları kimi fəaliyyət göstərən yeni yüksək spesifik elmi bilik alətləri ola bilər. Bununla əlaqədar yeni sintez olunmuş subftalocianin kompleksinin- ($C_{46}H_{49}BN_6O$), fotosistem II (FSII) olan membranlarda fotokimyəvi aktivliyə təsiri təsvir edilmişdir

Yeni sintez olunmuş kimyəvi agentin təsirini öyrənmək məqsədi ilə, istixanada yetişdirilmiş *Spinacia oleracea L.*ispanaq yarpaqlarından istifade olunmuşdur. FSII ilə zənginləşdirilmiş tilakoid membran preparatları yarpaqlarından təcrid edilmişdir.

Stasionar vəziyyətdə oksigenin ayrılmasını, işıq induksiyası ilə Klark-tipli Hansatech oksigen elektrodunu istifadə edərək süni elektron akseptorlarının birləşməsinin iştirakı ilə polaroqrafik olçülür. Power Graph Professional 33 proqramından istifadə etməklə bir fluorimetr , Aqua-Pen-C AP110-C, vasitəsi ilə FSII fotokimyəvi aktivliyini analiz etmek üçün, FSII xlorofil fluoresensiya məhsuldarlığının (▲F) fotoinduksiya olunmuş dəyişkənliklərinin kinetikası ölçüldü.

Fotosintetik oksigenin ayırma reaksiyasında FSII üçün elektronların süni akseptoru kimi, yeni sintez olunmuş kimyəvi agent ilə test edildi. Yalnız kimyəvi agentin iştirakı ilə, digər süni elektron akseptorların olmaması halında, FSII membranları tərəfindən oksigen ayırması sürətində azalma müşahidə edilmişdir.

Yeni kompleksin iştirakı ilə fluoresensiya məhsuldarlığının (▲F) fotoinduksiya olunmuş dəyişkənliklərinin azalmamüəyyən edilmişdir, və bu yeni agentin FSII tərkibli membranların fəaliyyətində maneə törətdiyini göstərir.

Alınan nəticələrə əsasən, ehtimal etmək olar ki FSII-nin fotokimyəvi aktivliyinin azalma səbəbi, kimyəvi agentin reaksiya mərkəzinə olan təsirindən qaynaqlanır və strukturunda bəzi konformasiya dəyişikliklərinə səbəb olur. Daha dəqiq cavab almaq üçün digər metodlardan istifadə edərək əlavə araşdırmalara ehtiyac var.

**Ədəbiyyat siyahısı:**

1. Ahmad, N.; Mukhtar, Z. Genetic Manipulations in Crops: Challenges and Opportunities. Genomics 2017, 109, 494–505.

2. Schütte,G.;Eckerstorfer,M.;Rastelli,V.;Reichenbecher,W.;Restrepo- Vassalli,S.;Ruohonen-Lehto,M.;Saucy,A.G.W.;Mertens,M. Herbicide Resistance and Biodiversity: Agronomic and Environmental Aspects of Genetically Modified Herbicide- Resistant Plants. Environ. Sci. Eur. 2017, 29, s12302–s12306.

# YABANI MEYVƏLƏRİN KİMYƏVİ TƏRKİBİ VƏ QİDALIQ DƏYƏRİ

**ÇİÇƏK BABAYEVA**

Beynəlxalq magistratura və doktorantura mərkəzi
Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)
chicekbabaeva99@gmail.com
Bakı, Azərbaycan

Xülasə. Yabanı meyvələr zəngin qidalıq dəyərinə görə əvəzolunmaz təbii sərvət mənbəyidir. Qədim zamanda belə bu növ bitki növü sağlamlıq üçün mühüm əhəmiyyətə malik olmaqla bir çox sahələrdə geniş şəkildə istifadə edilirdi. İnsanlar yabanı halda meyvələrin becərilməsinə zaman ayırmağa çalışsalar da mədəni bitkilərin bir çoxunu bu şəkildə istifadə etmək mümkün olmur. Bütün növ yabanı meyvələr faydalı olmaqla sağlamlığa mühüm dərəcədə təsir göstərir ki bu da onun zəngim qidalıq dəyəri ilə müəyyənləşir. Sağlam orqanizm üçün inkişaf meyarı gündəlik qida rasionunda vitaminlərlə, mineral maddələrlə zəngin qidaların qəbul edilməsi kimi qəbul edilid. Bu baxımdan yabani meyvələrin əhəmiyyəti heç də mədəni meyvələrinkindən geri qalmır, bəzi hallarda ötüb, keçə də bilir. Buna səbəb insanların sağlamlıqları üçün profilaktik tələbatlarının qarşılanma zəruriliyidir. Bilindiyi kimi ekologiyanın dəyişdiyi bir dövrdə əhali üçün vacib kriteriya optimal mühitdə daha da sağlam qlobal dünya yaratmaqdır. Yabanı meyvələr, giləmeyvələr yüksək miqdarda qida və enerji dəyərinə malikdir, onun hər 100 qram yeməli hissəsində təxminən 30-280 kkal aralığında kalorini ehtiva edir. Əsas enerji dəyəri meyvənin quru hissəsində olan hissəsindən gəlir ki bu da orada toplanan karbohidrata miqdarına görə müəyyən edilir. Məlum olduğu kimi meyvənin tərkibində olan karbohidrat dəyəri qoz-fındıqdakı dəyərə görə bərabər tutulur. Bununla yanaşı giləmeyvə və meyvələrdə enerji mənbəyi mikro və makroelementlər, vitaminlər və qida lifləri hesabına yaranır. Bu kimyəvi birləşmələrin kompleks şəkildə olması ürək-damar sisteminin normal şəkildə işləməsinə dəstək verməklə yanı sinir sisteminin vəziyyətini yaxşılaşdırır və ümumi orqanizmin immun sisteminin tənzimlənməsində fəal şəkildə iştirak edir.

Hələ keçmiş dövrdə də geniş şəkildə istifadə edilən yabanı meyvələrin istehsalına ciddi dərəcədə maddi dəstək göstərilmirdi, bu səbəbdən tələbatın doğru şəkildə dəyərləndirilməsi üçün istehsalat müəssisələrində yabanı meyvə və giləmeyvələrin becərilməsinə sərmayə ayrılmağa başlandı. Yabanı giləmeyvələrin istehsal xərcinin mədəni bitkilərə nisbətən az olduğunu nəzərə alaraq belə bitki növünün becərilməsinə daha çox sahə və kapitalın ayrılması zəruri hal hesab edilir.

Açar sözlər: Yabanı bitkilər, giləmeyvələr, rassional qidalanma, enerji dəyəri, kimyəvi tərkibi

Summary. Wild fruits are an invaluable source of natural resources due to their rich nutritional value. Even in ancient times, this type of plant was widely used in many areas, having important health benefits. Although people try to take time to grow fruits in the wild, many cultivated plants cannot be used in this way .All types of wild fruits are useful and have an important effect on health, which is determined by their nutritional value. The inclusion of foods rich in vitamins and minerals in the daily diet was considered a criterion for the development of a healthy body. From this point of view, the importance of wild fruits is not inferior to the importance of cultivated ones, and in some cases cases may exceed them. Wild fruits and berries have a high nutritional and energy value, each 100 grams of edible part of it contains calories in the range of about 30-280 kcal. The main energy value comes from the dry part of the fruit, which is determined by the amount of carbohydrates accumulated there. As you know, the carbohydrate content of fruit is equal to that of nuts. At the same time, the energy source in berries and fruits is created due to micro and macroelements, vitamins and dietary fibers. The complex presence of these chemical compounds improves the condition of the peripheral nervous system by supporting the normal functioning of the cardiovascular system and actively participates in the regulation of the immune system of the general body.

Çevir. The reason for this is the need to meet the preventive health needs of people. As is known, in the era of environmental change, an important criterion for the population is the creation of an even healthier global world in an optimal environment. Even in the past, the production of widely used wild

fruits is seriously was supported, therefore, in order to correctly assess demand, production enterprises began to allocate investments in the cultivation of wild fruits and berries. Taking into account that the cost of production of wild berries is significantly lower than that of cultivated plants, it is considered necessary to allocate more land and capital to the cultivation of this type of plant.

Key words: Wild plants, berries, rational nutrition, energy value, chemical composition

Giriş. Yabanı meyvələr insan orqanizmi üçün zəngin qidalıq dəyəri və funksionl təyinatına görə mühüm əhəmiyyətə malik olan bitki sortudur. Meyvə və giləmeyvələrin kimyəvi tərkibi vitamin, şəkər, mineral duzlar və üzvi turşularla dolu olan enerji deposudur. Bu növ meyvə və giləmeyvələr təbii şəraitdə yetişən və bir çox faydalı xüsusiyyətə malik olmaqla birlikdə sağlamlıq üçün bir sıra əhəmiyyə malikdir.

Məlum kortəbii şəkildə yetişsə belə yabanı meyvələr daha çox təbiilliyi ilə seçilərək aşağı kalorilik xüsusiyyəti ilə seçilir. Bu baxımdan yabanı meyvələrin 1 porsiyası 50 kalori ehtiva etsə də kalsium, kaliumla zəngin olmaqla yanaşı C vitamin onun antioksidant xassəsini üzə çıxardır. Məhz bu xüsusiyyəti ilə əlaqədar yabanı meyvələr insan orqanizmini zəhərli və zərərli radikallara qarşı kifayət qədər dayanıqlıdır. Bununla da bu qrup meyvələr həzm sistemini qoruyaraq qanda xolesterol miqdarını tənzimləməklə birlikdə insulin dirəncinin formalaşmasına da təsir edir. Eyni zamanda yabanı meyvə və giləmeyvələr immuniteti gücləndirməklə orqanizmi bir sıra xəstəliklərdən qoruyur. Hər bir yabanı meyvələrin enerji və kalorilik dəyərini araşdırmaqda başlıca məqsəd onun sağlamlığa olan təsirini öyrənməkdir. Bu xüsusiyyətlərin mahiyyətcə qiymətləndirilməsi sağlam qidalanmada effektiv qidalanma planında meyvələrin zəruriliyini müəyyənləşdirir.

Mövzunun aktualılığı: Yabanı meyvələrin kimyəvi tərkibinin öyrənilməsi tədqiqatımızın əsas mövzusu olmaqla bir sıra kimyəvi maddələrin və vitaminlərin təhlili işin öyrənilməsində başlıca məqsəd hesab edilir. Bu baxımdan meyvələrin sağlığa olan təsiri həmişə tədqiqatçıların araşdırılmasında yer almışdır. Belə bitkilərin tərkibində B qrup vitaminlər, şəkər, üzvi turşular və digər turşular xüsusi yer tutur. Məsələn, yabanı meyvələrdən böyürtkəndə şəkər 10-12%, saxaroza 5%, üzvi turşular 1,3% aralığında olması müəyyən edillmişdir. Belə zəngin tərkibinə görə yabanı meyvələr bir sıra qənnadı məmulatların, o cümlədən araq, likor və bir sıra alkoqollu içkilərin tərkibində əsas xammal kimi istifadə edilir. Bundan başqa yabanı bitkilər meyvə kimi tərgətirici və sidikqovucu xassəsinə görə təbabətdə geniş şəkildə istifadə edilir. Hər bir zəngin kimyəvi tərkibinə istinadən belə meyvələr həmçinin soyuqdəymə və respirator infeksiyalarda təbii bitki çayı kimi tövsiyə edilir.

Bununla yanaşı yabanı bitkilərin yüksək kimyəvi dəyəri onun tərkibindəki azotlu maddələrlə, pektin maddə, efir yağları, kalium kimi dəmir duzları ilə də səciyyəvidir. Belə tərkib zənginliyi yabanı giləmeyvələrdən çiyələkdə görmək olur ki burada pektin maddəsi-1,5%, azotlu maddə- 1,8%, kalium dəmir duzu-1,4% və efir yağlarının miqdarı 22-25% mq dəyərində qəbul edilmişdir. Bu spesifik xüsusiyyətinə görə çiyələk marmeladların, konfetlərin və sərinləşdirici içkilərin hazırlanmasında da geniş şəkildə istifafə edilir. İstehsal texnologiyasına görə yabanı meyvələrdən çiyələk, böyürtkən povidlo, mürəbbə və şərab kimi içkilərdə də çox istifadə edilir. Çiyələk eyni zamanda həzm sisteminin fəaliyyətində unikal qida vasitəsi olaraq bağırsaq sekresiyalarının işini yaxşılaşdır, iştahı artırır və mədə-bağırsaq xəstəlilklərin müalicəsində dietoloqların daima məsləhət etdiyi təbii qida əlavəsidir.

Eyni zamanda qan-damar sisteminin, daxili orqanların və sinir sisteminin bir sıra xəstəliklərində çiyələk faydalılığı ilə seçilməkdədir. Bununla yanaşı çiyələk tək təzə meyvə kimi yox eyni zamanda yarpaqları ilə iltihab əleyhinə əhali arasında da çox geniş şəkildə istifadə edilir. Bu xassəsiinin faydalılığına əsasən çiyələyin kökündən alınan meyvə şirələr sitrus meyvələrinin şirələri qədər faydalıdır. ( Shen, X., Sun, X., Xie, Q., Liu, H., Zhao, Y., Pan, Y., Hwang, C. A., Wu, V. C. H. 2014).

Yabanı giləmeyvələrdən moruq da eyni zamanda digər meyvələr kimi üzvi turşular, şəkər ehtiyatı, askorbin turşusu zənginliyi seçilir. Moruğun faydalılığı digər yabanı giləmeyvələr kimi soyuqdəymə və iltihab əleyhinə vasitə kimi dəyərləndirilməkdədir. Eyni zamanda bu bitkidən şərbət, şirə, mürəbbələrin hazırlanmasında istifadə etməklə kullinariyada da davamlı şəkildə də istifadə edilir. Belə mevələlərin qurudulub və dondurulmuş şəkildə yararlanılması şəkərli diabet xəstəliyində bir sıra qida əlavələr kimi tələbata uyğundur. Digər giləmeyvələrə nisbətən moruqda yetişdirilmə xüsusiyyəti, becərilməsinə görə kimyəvi tərkibi dəyişir. Buradan sellüloza 8-9%, şəkər 4-11%, mineral maddələr 0,6-08%, pektin maddələr 0,9-3,0% aralığında olmaqla fərqlənir. Eyni zamanda moruqda qlükoza, fruktoza digər yabanı meyvələrdən fərqli olaraq yetişdirilməsinı görə dəyişməkdədir.

Tədqiqtın obyekti və metodikası. Yabanı giləmeyvələrdən çiyələk, moruq və böyürtkən zəngin kimyəvi tərkibi və bioloji faydalılığı onum daima insanlar tərəfindəən istifadə edilməsinin zəruriliyini yaradır. Belə meyvələrin sağlamlığa olan faydalı xüsusiyyəti keyfiyyətinin təhlilində əhəmiyyətli araşdırılmalara yol açır. Tədqiqatın əsas obyekti olaraq dəyərləndirilən yabanı giləmeyvələrin (böyürtkən, moruq, çiyələk) keyfiyyətinin təhlilində araşdırılmalarla onun praktiki əhəmiyyətini vurğulayır. Bu baxımdan meyvələrdə keyfiyyət göstəricilərin öyrənilməsində onun mövcud beynəlxalq standartlara cavab verməsi əsas şərt hesab edilir. Belə giləmeyvələrin keyfiyyətində normativ-texniki sənədlərdə əsas olan şərtlərin təhlili mühüm hal kimi qəbul olunmuşdur. Bu səbəbdən yabanı meyvələrdə keyfiyyət xassələrinin tədqiqində 2 əsas metoddan istifadə edirlər.

• Orqanoleptik metod- yabanı giləmeyvələrin xarici görünüşü, dadı, konsistensiyası, ətiri və yetişməsi kimi başlıca xassələri özündə əks etdirir.

• Fiziki-kimyəvi metod- burada meyvə və giləmeyvələrin kimyəvi tərkibi- pektik maddəsinin dəyəri, turşululuq xassəsi, rütubər miqdarı, şəkər, C vitamini, aşı və boyama maddələrinin dəyəri araşdırılır.

Tədqiqatın nəticələri və müzakirəsi. İnsan sağlamlığında mühüm əhəmiyyətə malik yabanı meyvələr son dövrdə daha da təkmilləşdirilərək gündəlik qida rasionunda əvəzsiz şəkildə istifadə edilir. Belə meyvə və ya giləmeyvələrin müalicəvi xüsusiyyətinə dayanaraq bir sıra xalqların təbabətində giləmeylərdən hazırlanmış meyvə şirələri, otlarından hazırlanmış dəmləmələr və eyni zamanda kimyəvi dərmanlar da əhalinin tələbatına görə hazırlanılır. Bunlar həm profilaktik həm müalicəvi məqsədlə istidadə edilərək geniş kütlələlərin mətbəxlərinə ilkin olaraq qida, sonra isə bitki tərkibli qida əlavəsi kimi daxil oldu. Tədqiqatın əsas obyekti olaraq seçilən böyürtkən, moruq və çiyələyin kimyəvi tərkibinin araşdırılmasında məhsulun qida dəyəri zülal, minerallar, vitaminlər və pektin maddəsinə müvafiq aşağıdakı cədvəldə sxematik olaraq təhlil edilmişdir. İlkin olaraq yabanı giləmeyvələrdən çiyələyin kimyəvi tərkibini araşdıraq. ( Batu, A., 2012).

Yabanı meyvələr, giləmeyvələr yüksək miqdarda qida və enerji dəyərinə malikdir, onun hər 100 qram yeməli hissəsində təxminən 30-280 kkal aralığında kalorini ehtiva edir. Əsas enerji dəyəri meyvənin quru hissəsində olan hissəsindən gəlir ki bu da orada toplanan karbohidrata miqdarına görə müəyyən edilir. Məlum olduğu kimi meyvənin tərkibində olan karbohidrat dəyəri qoz-fındıqdakı dəyərə görə bərabər tutulur. Bununla yanaşı giləmeyvə və meyvələrdə enerji mənbəyi mikro və makroelementlər, vitaminlər və qida lifləri hesabına yaranır. Bu kimyəvi birləşmələrin kompleks şəkildə olması ürək-damar sisteminin normal şəkildə işləməsinə dəstək verməklə yanı sinir sisteminin vəziyyətini yaxşılaşdırır və ümumi orqanizmin immun sisteminin tənzimlənməsində fəal şəkildə iştirak edir.

Yabanı meyvələrin qida dəyərinin öyrənilməsində kaloriliyinin müəyyən edilməsi mühüm əhəmiyyət kəsb edir. Burada meyvənin tərkibində karbohidrat, zülal, yağ, potasium, lif, A və C vitaminin miqdarının təyin edilməsi əsas amil olmaq etibarı ilə araşdırılmalarda hər zaman müzakirə edilməkdədir. Bunu ölkəmizdə geniş şəkildə yayılmış yabanı meyvələri içərisində daha çox yayılan qaragilə meyvəsi üzəindən tədqiq edək. (cədvəl 2, 3).

Cədvəldə qeyd olunan göstəricilərə əsasən yabanı qaragilə meyvə nümunəsinin tərkibində olan elementləri tədqiq etdik. Məlum yabanı halda yetişən qaragilə meyvəsi ilə hündür kollar arasında bitən qaragilə bitkisinin kimyəvi tərkibi arasında bir sıra fərqlər var. Bu fərqlər daha çox Na, Ca və Mg kimi mikroelementlərin göstəricilərinə görə müşahidə edilir. Bu fizioloji xüsusiyyətinə dayanaraq qaragilə meyvəsinin pəhrizli qidalar arasında çox rastlaşdığını bir sıra funksionol qidalarda asanlıqla görə bilərik. Adətən belə giləmeyvələrin tərkibində kalium (K) miqdarı kalsium (Ca) və Magnezium (Mg) miqdarından demək olar ki 10 dəfə çoxdur. Bu göstərici tək yabanı qaragilə meyvəsi üçün səciyyəvi deyil bütün növ yabanı halda yetişəm giləmeyvələrə uyğundur. Buna səbəb kaliumun kalsium və magneziuma əsasən daha hərəkətli olması, meyvənin bütün hisəsində toplanmasıdır. Bundan fərqli olaraq Fe, Cu, Cr və Ni yabanı giləmeyvələrin tərkibində olduğu kimi mədəni giləmeyvələrdə də görmək olar.

Yabanı meyvələrin kimyəvi tərkibində mövcud flavonoidlər və antosiyaninlər onun bioaktiv xüsusiyyətini gücləndirməklə sağlamlığa olan faydalılığını bir daha göstərir. Bu xassəsinə görə belə meyvələrin istifafəsi bir sıra xroniki xəstəliklərin müalicəsində antimikrob və iltihab əleyhinə vasitə kimi dərman preparatlarına əlavə olaraq istifadə edilir. Bu baxımdan məqalənin başlıca mövzusu olan

"Yabanı meyvələrin kimyəvi tərkibi və qidalıq dəyəri" adlı mövzuda qərara gəldiyimiz nəticəni təqdim edirik. ( Mphahlelea, R.R., Stander, M.A., Fawolea,O.A., Oparaa, U.L. 2014).

Nəticə. Yabanı meyvələrin kimyəvi tərkibinin və zəngin bioloji aktivliyinin mövcudluğuna dayanaraq belə meyvələrin istifadəsinin zəruriliyi tədqiqatımızın əsas araşdırılma mövzusu olaraq tədqiq edildi. Bununla da demək olar ki işin tədqiqi mərhələsində məhsulun keyfiyyətinin sabit saxlanılması üçün yabanı meyvələrin kimyəvi tərkibinin uzun müddət davamlı olması mühüm əhəmiyyət kəsb edir. İnsan sağlamlığı üçün bioloji aktivliyi yüksək olan qidaların qəbulu hər zaman tibb mütəxəssislərinin məsləhət bildiyi qidalar sırasındadır. Dietoloqlar sağlam orqanizmin bünövrəsini sağlam ruhda gördükləri kimi başlıca olaraq funksional təyinatlı qidaların istifadəsində də görürlər. Təbii olaraq zəngin kimyəvi tərkibli qidalar dedikdə mikro və makro elementlərlə zəngin olan qidalar başa düşülür, vitaminlər, kompleks birləşmələr, pektin maddələr və bir sıra minerallarla ehtiva olunan yabanı meyvə və giləmeyvələr daima qida rasionumuzda vacib yer tutmalıdır. Hər bir halda yabanı meyvələrdə kimyəvi tərkibin və bioloji aktivliyin araşdırılması onun əhəmiyyətini vurğulamaqla birlikdə qida məhsullarında fizioloji tələbatın ödənilməsinin zəruriliyini də müəyyənləşdirir. Məlum məhsulun keyfiyyətinin uzun müddət sabit saxlanılması tərkibindəki komponentlərin qorunmasına görə öyrənilir. Yabanı meyvələrin keyfiyyətinin sabit saxlanılması üçün dondurulma texnologiyasının tətbiq edilməsi qida dəyərinin sabitlənməsində başlıca amil hesab edilir. Hər bir məhsulda keyfiyyət parametrləri onun qidalıq dəyəri və kalorilik həddinə əsasən müəyyənləşərkən tədqiqatımızda mühüm amil işin əsasını öyrəmmək, burada öncədən nəzərdə tutulmuş QOST standartlarının nəzərə alınması və zamanla bir qədər də təkmilləşdirilməsi qarşıya qoyulan hədəfə çatmaqda mühüm əhəmiyyətə malikdir. Bu baxımdan yabanı meyvələrin kimyəvi tərkibində mövcud vitaminlər, minerallar və kompleks birləşmələrin ayrı-ayrılıqda araşdırılıb, tədqiq edilməsi kimyəvi tərkibinin öyrənilməsi əsasında qida dəyərini də əsaslı şəkildə təhlil etmiş olur.

Müxtəlif nəzəriyyələrdə eyni zamanda praktikalarda meyvə və giləmeyvələrin kaloriliyinin bir-birindən fərqli şəkildə görsənməsi daha çox yetişdirilmə şəraitindən, torpaq münbitdən asılı olaraq fərqlənməsi mahiyyət etibarı ilə doğrudur. Bunu ölkəmizin münbit şəraitində yola çıxaraq Azərbaycanın bir sıra aran rayonlarında yetişdirilən böyürtkən üzərindən sübut etmək olar. Belə ki böyürtkən yabanı meyvə kimi çox məhsuldarlıq verən hətta quraqlığa qarşı davamlı olaraq yetişməsi ölkə iqtisadiyyatının dəyərləndirilməsi üçün unikal meyvə olaraq qəbul edilməlidir. Bu baxımdan yetişməsi çox əlverişli olan və becərilməsi bir qədər asan başa gələn böyürtkən bitkisinin fərqli sortlarının yetişdirilməməsi hələ də öz aktuallılığını qoruyub saxlayır. (Uçebnik-M İNFRA-M, 2016.) Tədqiqatımızda yabanı meyvələrin qida tərkibinə əsasən təhlil edilmiş, meyvələrin daha çox antibakterial və antimikrobial təsiri araşdırıladaq kimyəvi tərkibi öyrənilmişdir. Bu baxımdan kor təbii şəkildə yetişən yabanı meyvələrin insan sağlamlığına olan müsbət təsirindən faydanılması üçün ilkin olaraq meyvədə bioloji aktivliyi öyrənmək və qida dəyərini yüksəltmək işin əsas mahiyyətini kəsb etməlidir. (Acar, J., Gökmen, V. 2014).

Tədqiqatın nəticəsindən yola çıxaraq tədqiqat obyekti olaraq seçilən qaragailə meyvəsinin kimyəvi tərkibi və qida dəyəri araşdırıldı. Burada meyvənin orqanoleptik metodla (dadı, rəngi, qoxusu) öyrənilərkən digər fiziki-kimyəvi metodla meyvənin enerji dəyəri təhlil edildi, əldə edilən məlumatlara görə məhsulunun rənginin tünd-göy rəngdə olması,qoxusunun meyxoş, dadının isə tam yetişən növündə şirin, bir az az yetişən növündə isə turşuluq müəyyənləşmiş oldu. Meyvəyə şirinlik dadını verən onun tərkibindəki riboflavin və fol turşusu olmaqla turşuluq xassəsi isə piridoksin və nikotinik turşunun miqdarına əsasən təyin edilmiş oldu.

Ədəbiyyat siyahısı

1. Tovarovedeniye i ekspertiza potrebitelskiy tovarov: Uçebnik-M İNFRA-M, 2016.

2. Acar, J., Gökmen, V. 2014. Fenolik bileşikler ve doğal renk maddeleri. (Ed.) Saldamlı, İ., Gıda Kimyası, Hacettepe Üniversitesi Yayınları, Ankara. 557-585.

3. Batu, A. 2012. Alıç meyvesinin fonksiyonel gıda olarak değerlendirilmesi ve insan sağlığı bakımından önemi. Türk Bilimsel Derlemeler Dergisi. 5: 1-5.

4. BOBM (Bursa Orman Bölge Müdürlüğü). 2012.

5. Yabani meyveli orman ağaçları eylem planı, 2012-2016.

6. http://www.bursaobm.ogm.gov.tr/ documents/subeler/ silvikultur/ ymep.pdf. Erişim tarihi: Mart 2015.

7. Mphahlelea, R.R., Stander, M.A., Fawolea,O.A., Oparaa, U.L. 2014. Effect of fruit maturity and growing location on the postharvest contents of flavonoids, phenolic acids, vitamin C and antioxidant activity of pomegranate juice (cv. Wonderful). Scientia Horticulturae. 179: 36-45.

8. Shen, X., Sun, X., Xie, Q., Liu, H., Zhao, Y., Pan, Y., Hwang, C. A., Wu, V. C. H. 2014. Antimicrobial effect of blueberry (Vaccinium corymbosum L.) extracts against the growth of Listeria monocytogenes and Salmonella Enteritidis. Food Control. 35: 159-165.

9. A. S. Wehmer. The nutrient composition of some edible wild fruits found in the Transvaal. South African journal of nutrition. 1996; 40 :1102-1104.

10. Anita Tomar and Dinesh Kumar. Conservation of less known and less utilized wild fruits tree species .MFP News . 2012 ; 21(3) pp.11-14.

11. Ethnomedicinal Plants used by the baigas in Uttar Bastar (Kanker) districts of Chhattisgarh. In, Singh Sanjay and Das Rameshwar(ed). Non timber Forest Products and Medicinal plants. Conservation, improvement and sustainable utilization. Hamara Press, Ranchi, 2012; 100-109.

12. B.T. Kiremire, E. Rubaihayo, J. K. Kikafunda, C. Bukenya, R. Bukenya-Ziraba, E .Musinguzi and E. Nakamatte. Indigenous food plants of Uganda. In, Proceedings of the 5th Colloquium of Natural products. 7-9 August 2001, Quebec, Canada. 2002.

ƏLAVƏ

Cədvəl 1( a): Yabanı meyvələrdə su, quru maddə və şəkər kütləsi

| | | | |
|---|---|---|---|
| Albalı | Su miqdarı- 83,30% | Quru maddə kütləsi-16.75 % | Şəkər miqdarı- 7.78% |
| Böyürtkən | Su miqdarı- 82,60% | Quru maddə kütləsi-18.50% | Şəkər miqdarı-7.61% |
| Zoğal | Su miqdarı-76% | Quru maddə kütləsi-24% | Şəkər miqdarı-16.98% |
| Gavalı | Su miqdarı-84.72% | Quru maddə kütləsi-15.05% | Şəkər miqdarı-7.70% |

Cədvəl 1 (b): Yabanı meyvələrin kimyəvi tərkibi

| | | | | | |
|---|---|---|---|---|---|
| Albalı | Na | 20.25 mg/100g | K | 288 mg/100g | Ca |
| 26.50 mg/100g | Mg | 9.52 mg/100g | Fe | 0.08 ppm | |
| Gavalı | Na | 11.78 mg/100g | K | 466 mg100g | Ca |
| 4.11 Mg/100g | Mg | 8.53 mg/100g | Fe 0,11 ppm | | |
| Böyürtkən | Na | 3.70 Mg//100g | K | 374 mg/100g | Ca |
| 10.01 | | | | | |

mg/100g Mg
7.9
mg/100g Fe
25.40
ppm

Zoğal Na
14.45 mg/100g K
14.45 mg/100 g Ca
15.01
mg/100 g Mg
13.32
mg/100 g Fe
7.04
ppm

Mənbə: Tovarovedeniye i ekspertiza potrebitelskiy tovarov: Uçebnik-M İNFRA-M, 2016.

Cədvəl 2: Qaragilə meyvəsinin qida dəyəri (100 qram)

| Qida dəyəri | Karbohidrat | Zülal | Yağ | A vitamini | C vita | Potasium |
|---|---|---|---|---|---|---|
| 44 Kkal | 8.50 qram | 0.6 qram | 0,4 qram | 6.1 IU | 31,0 mq | 99 mq |

Mənbə: Tovarovedeniye i ekspertiza potrebitelskiy tovarov: Uçebnik-M İNFRA-M, 2016.

Cədvəl 3: Qaragilə meyvəsinin mineral tərkibi (100 qram)

| | |
|---|---|
| Kalsium (Ca) | 5,80 |
| Dəmir (Fe) | 0,15 |
| Magnezium (Mg) | 4,97 |
| Fosfor (P) | 9,90 |
| Seleniim (Se) | 0,55 |
| Manqan (Mn) | 0,25 |
| Natrium (Na) | 0,55 |

Mənbə: Tovarovedeniye i ekspertiza potrebitelskiy tovarov: Uçebnik-M İNFRA-M, 2016.

# GÜNƏBAXAN BİTKİSİNİN BAŞLICA ZƏRƏRVERİCİLƏRİ VƏ İNKİŞAF DİNAMİKASI

**XƏYALƏ ABBASOVA**

Bitki Mühafizə və Texniki Bitkilər Elmi-Tədqiqat İnstitutu
xayalaabbasova1993@gmail.com
Gəncə, azərbaycan

**Xülasə**

Məlum olduğu kimi müasir dövrdə Azərbaycanda iqtisadiyyatın səmərəliliyinin artırılması, rəqabət qabiliyyətinin yüksəldilməsi və əhalinin keyfiyyətli və ekoloji təmiz ərzaq məhsullarına olan tələbatının ödənilməsi çərçivəsində qeyri-neft sektorunun inkişafının təmin edilməsi, o cümlədən aqrar sektorda kənd təsərrüfatı bitkilərinin yüksək səviyyədə bəcərilməsi qarşıya qoyulan məqsədlərdən biridir. Bu baxımdan son dövrlərdə günəbaxan bitkisinin becərilməsinə böyük tələbat yaranmışdır. Aparılmış hesablamalar göstərir ki, tələb olunan aqrotexniki parametrlər və torpaq-iqlim xüsusiyyətləri nəzərə alınmaqla Azərbaycanda günəbaxan bitkisinin becərilməsi üçün təqribən 236 min hektar sahə əlverişli, təqribən 536 min hektar sahə az əlverişli, qalan ərazilər isə əlverişsizdir. Göründüyü kimi, Azərbaycanda günəbaxan əkini sahəsinin genişləndirilməsi üçün kifayət qədər əlverişli ərazilər mövcuddur. Azərbaycanda 9.9 min hektar günəbaxan sahəsindən 25.9 min ton məhsuldarlıq alınmışdır (2023-cü il). Eləcə də günəbaxan bitkisində yüksək keyfiyyətli məhsul almaq üçün geniş yayılmış və iqtisadi cəhətdən ziyanlı hesab edilən zərərvericilərin növ tərkibi öyrənilməli və onlara qarşı səmərəli mübarizə tədbirləri işlənib hazırlanmalıdır. Günəbaxan güclü bitkidir, böyük vegetativ kütləyə malikdir, buna görə də böyük bitkini çox az həşərat məhv edə bilir. Lakin çıxış dövründə o, asanlıqla sirayətlənir, əvvəla ona görə ki, hektara az sayda bitki yerləşdirilir, həm də ona görə ki, günəbaxan çıxışları bir çox həşəratlar üçün sevimli yemdir. Çıxışların məhv olması adətən bitkinin məhvinə səbəb olur. Əhalinin ərzaq məhsullarına olan tələbatının ödənilməsində bitki mühafizəsinin rolu böyükdür. Bu məqsədlə günəbaxan bitkisində başlıca zərərvericiləri dəqiqləşdirmək üçün ayda iki dəfə marşrut müayinə-hesabat işləri aparılmalıdır. Müayinələr zamanı stasionar sahədə günəbaxan bitkisinin başlıca zərərvericilərindən olan məftil qurdları, çəmən kəpənəyi və günəbaxan odlucasına rast gəlinmişdir. Zərərvericilərin vurduqları ziyan məhsuldarlığı xeyli aşağı salır.

SUMMARY

As it is known, in the modern era, one of the objectives is to increase the efficiency of the economy in Azerbaijan, increase the competitiveness and ensure the development of the non-oil sector within the framework of meeting the population's demand for quality and ecologically clean food products, as well as the cultivation of agricultural plants at a high level in the agrarian sector. In this regard, there has been a great demand for sunflower cultivation in recent times. It is one of the most important issues facing agriculture, as it is all over the world. 25.9 thousand tons of yield was obtained from 9.9 thousand hectares of sunflower field in Azerbaijan (year 2023). Also, in order to obtain a high-quality product in the sunflower plant, the species composition of widespread and economically harmful pests should be studied and effective measures against them should be developed. Sunflower is a strong plant, it has a large vegetative mass, so very few insects can destroy a large plant. But during the emergence period it is easily infected, firstly because few plants are planted per hectare, but also because the sunflower exits are a favorite food for many insects. Destruction of the exits usually leads to the destruction of the plant. The role of plant protection in meeting the population's demand for food products is great. For this purpose, route inspection-report work should be carried out twice a month to determine the main pests of the sunflower plant. During the inspections, wireworms, grass butterflies and sunflower fireflies, which are the main pests of the sunflower plant, were found in the stationary area. Damage caused by pests significantly reduces productivity.

Açar sözlər: GÜNƏBAXAN, ZƏRƏRVERICI, MƏFTIL QURDU, ÇƏMƏN KƏPƏNƏYI, GÜNƏBAXAN ODLUCASI, INKIŞAF DINAMIKASI.

KEY WORDS: SUNFLOWER, PEST, WIREWORM, GRASS BUTTERFLY, SUNFLOWER FIREFLY, DEVELOPMENT DYNAMICS.

**Giriş**

Günəbaxan çox əhəmiyyətli yağlı texniki bitkidir. Günəbaxanın elmi adı yunanca Helianthusdur. Helios günəş, Anthus çiçək mənası verir. Günəbaxan günəşə ehtiyacı olan bitkidir və günəşin şərqdən qərbə hərəkətini izləyir, buna heliotropizm deyilir. Hər günəbaxan əslində minlərcə xırda çiçəklərdən əmələ gəlir. Bir günəbaxanda 1000 – 2000 arası toxum olur. Amerikaya məxsus olan bu bitki ən azı 4500 il əvvəl bir çox xalqlar tərəfindən yetişdirilib. Günəbaxan çox tez böyüyən bitkidir. 80-100 günə biçimə çatan növləri var. Ümumiyyətlə bitki boyu 2.4 – 3.7 metr olur. Ən yüksək günəbaxan bitkisi Ginnesin rekordlar kitabında qeydiyyatdadır və 1986-cı ildə Hollandiyada M. Heijims tərəfindən yetişdirilib, həmin bitkinin hündürlüyü 7,62 metr olub. Ən böyük başlı günəbaxan bitkisi 1983-cü ildə Kanadada Emily Martin tərəfindən yetişdirilib və diametri 81,28 cm olub. Qara şabalıdı torpaqlar və boz meşə torpaqları günəbaxan yetişdirmək üçün yararlıdır. İnsanlar onun həm gövdəsindən, həm də yağı çəkilmiş toxumunun qabığından istifadə edirlər. Bütün bunlardan həm mal-qara üçün yem kimi, həm də plastik kütlə, viskoz və kağız istehsalı üçün xammal kimi istifadə edilir. Günəbaxanın yaxşı inkişaf edən 2-3 m və çox dərinliyə çatan mil kök sistemi vardır. Azərbaycanda "Qiqant-549", "Kazio", "Yason", "Duet", "Oktava", "Oreşek", "Lyuks" və s. sortları becərilir. Günəbaxan əsasən yağlı bitki kimi becərilir. Müasir sortların tərkibində yağın miqdarı 50-52%-ə çatır (M. A. Vəliyeva, E.A.Xəlilov 2020). Günəbaxan istehsalı və emalı sahələrinin inkişaf etdirilməsi məsələləri ölkəmizdə hökumət tərəfindən qəbul edilmiş aqrar siyasətə dair strateji sənədlərdə, eləcə də normativ aktlarda öz əksini tapmışdır. Belə ki, ölkə başçısının təsdiq etdiyi "Kənd təsərrüfatı məhsulları istehsalına və emalına dair Strateji Yol Xəritəsi"ndə dən üçün günəbaxan və günəbaxan yağının istehsalının stimullaşdırılmasına, həmçinin bitki yağları istehsalında istifadə olunan xammalın, o cümlədən günəbaxanın yerli istehsalının artırılması imkanlarının qiymətləndirilməsi məsələləri öz əksini tapmışdır.

Günəbaxan istehsalı və emalı məsələlərinin dövlətin aqrar siyasətində prioritet hesab edildiyini nəzərə alaraq belə qənaətə gəlmək olar ki, günəbaxan sektorunun inkişafı sistemli tədbirlərin müəyyən edilməsi ilə həyata keçirilə bilər. Bu isə dəyər zənciri üzrə günəbaxan sektoruna istiqamətlənmiş tədqiqatların aparılmasını tələb edir. Doğrudur, əvvəlki günəbaxan sortlarının toxumları (tumu) həm az, həm də xırda idi. İndi isə bu bitkinin yeni sortları yetişdirilib: bəzisinin "səbətinin" diametri 20 santimetrə çatır. Hər səbətdə 7 minə qədər iri, yağlı tum yerləşir. Yüksək keyfiyyətli məhsul əldə etmək üçün ilkin aqrotexniki tədbirlərlə yanaşı zərərvericilərə qarşı mübarizənin aparılması çox vacibdir. Əhalinin ərzaq məhsullarına olan tələbatının ödənilməsində bitki mühafizəsinin rolu böyükdür. Eləcə də günəbaxan bitkisində yüksək keyfiyyətli məhsul almaq üçün geniş yayılmış və iqtisadi cəhətdən ziyanlı hesab edilən zərərvericilərin növ tərkibi öyrənilməli və onlara qarşı səmərəli mübarizə tədbirləri işlənib hazırlanmalıdır. Gəncə-Daşkəsən iqtisadi rayon şəraitində günəbaxan bitkisində yayılmış zərərvericilərin növ tərkibini öyrənmək üçün vegetasiya müddətində ayda 2 dəfə olmaqla marşrut müşahidə-hesabat işləri aparılmışdır. Stasionar sahə kimi BM və TB ETİ-nin təcrübə sahəsi (bir hektar yarım) seçilmişdir.Əkilən günəbaxan Oreşek sortu olmuşdur. Müayinələr zamanı günəbaxan bitkisində kök zərərvericisi məftil qurdu, yarpaq–çəmən kəpənəyi, səbət fazasında isə günəbaxan odlucası aşkar edilmişdir.

Şıqqıldaq böcəyi (Elatridae Leach.) böcəklər dəstəsinin (Coleoptera), şıqqıldaq böcəklər (Elatridae) fəsiləsinə mənsubdur. Zərərverici demək olar ki, bütün dünyada yayılmışdır, növlərin və coğrafi populyasiyaların müxtəlifliyi zərərvericinin yayılmasına kömək edir. Ancaq onların torpaqda yaşayan məftilqurdu adlanan sürfələri müxtəlif bitkilərin toxum və cücərtilərinə, kök sisteminə böyük zərər vurur. Bu zərərvercilər əsasən turş reaksiyalı meşə torpaqlarında geniş yayılmışdır. Məftil qurdları bitkinin bütün vegetasiya dövründə kök və gövdə hissə ilə qidalanaraq ona zərər vurur. Quraqlığa həssas olan məftil qurdları, havanın isti vaxtlarında bitkinin sulu orqanları ilə qidalanaraq orqanizmlərinin nəmlik balansını bərpa edir. Onlar gövdənin daxilinə, özək hissəsinə daxil olaraq bitkinin qida və su balansını pozur. Beləliklə, bitki yaxşı inkişaf etmir və ya tamamilə məhv olur.

Şıqqıldaq böcəklərin bədəni uzunsov bir qədər yastı, ölçüləri 1-60 mm aralığında dəyişir. Ayaqları qısa 5 buğumludur. Yumurtası kiçik, oval, ağımtıl rəngdədir. Ölçüsü 0.5 mm-dir. Sürfələr

17-22 mm uzunluğunda, silindirik və ya bir qədər yastı, sərt bədənə malikdirlər. Rəngləri sarımtıl qəhvəyidir.

Çəmən kəpənəyi (Loxostege sticticalis L.) – Kəpənəklər dəstəsinin (Lepidoptera) Enliqanad odlucalar (Pyraustidae) fəsiləsinə aiddir. Çəmən kəpənəyi Rusiyanın Avropa hissəsində şimaldan 60°-ə qədər, Şimali Qafqazda, Cənubi Sibirdə, Kamçatkada, Uzaq Şərqdə, Baltikyanı ölkələrdə, Belarusiya, Ukrayna, Moldova, Zaqafqaziya və Qazaxıstanda, Türkiyədə və həmçinin Azərbaycanda geniş yayılmışdır. Ön qanadları bozumtul-qəhvəyi rəngdə olub, üzəri müxtəlif naxışlıdır. Sakit halda kəpənəyin qanadları üçbucaq formasını alır və qarın ucu dişilərdə qanadların altında qalır, erkəklərdə isə aydın görünür. Tırtılı yaşılımtıl bozdur. Beli üzərində bütün bədən boyu aydın seçilən tutqun zolaq vardır. Yan tərəflərdən uzanan zolaqlar arası ilə dalğavari yaşılımtıl sarı zolaqlar gedir. Başı qaradır, uzunluğu 25-mm-dir. Pup halına keçən zaman tırtılın toxuduğu barama kisə şəkilli olur. Çəmən kəpənəyi Azərbaycanda 3- 4 nəsil verir. İlk kəpənəklər aprelin ortalarında uçmağa başlayır. Gecələr aktiv, gündüzlər hərəkətsizdirlər. Dişilər iki həftəyə qədər yaşayır, dişi 60-400 yumurta qoyur. Kəpənəklər müxtəlif oval formalı və parlaq, yumurta əvvəlcə şəffaf və rəngsizdir, sonra sürfənin çıxışına yaxın narıncı sarı və boz rəngə çevrilir. Yumurtaların uzunluğu 0,8-1,0 mm, 2-20 ədədi birlikdə qoyulur. Yabanı bitkilər və ağacların çiçək nektarı ilə qidalanır. Yumurtalar bir çox yabanı və mədəni bitkilərin yarpaqları üzərinə qoyulur. Qoyulmuş yumurtalardan 3-5 gündən sonra tırtıllar çıxmağa başlayır. Zərərvericinin 5 sürfə mərhələsi var. Birinci dövrdə sürfənin uzunluğu 1,5-2,5 mm, son dövrdə isə 18-25 mm-dir. Yetkin sürfə yaşıldan qaraya doğru rəngini dəyişir, arxa və yanlarında açıq və tünd zolaqlar uzanır. Yumurtadan çıxan sürfə bitkilərlə qidalanmağa başlayır. Sürfələr böyüdükcə daha çox ziyan vurur, beləki, yalnız yarpaqların damarlarını buraxır. Tırtıllar bitkilərin yerüstü hissələri- yarpaqları, çiçəkləri bəzi hallarda isə hətta meyvələri və gövdələri ilə qidalanır. Sürfə dövrü qida və iqlim şəraitindən asılı olaraq 14-22 gün davam edir. Tam inkişaf etmiş tırtıllar puplaşmaq üçün torpağa enir. Pupun uzunluğu 8-13 mm, eni 3-4 mm-dir. Torpaqda silindrik və torlu baramada rast gəlinir. Torpağın 5-7 sm dərinliyindəki pup baramada yetkin sürfə kimi qışlayır. Pup dövrü 14-18 gündür. Müşahidələr zamanı 2 çəmən kəpənəyinin sürfəsinə rast gəlinmişdir ( Кузнецов В.И. Т. III. Чешуекрылые 1994) . Günəbaxan odlucası (Homoeosoma nebulella) Kəpənəklər (Lepidoptera) dəstəsinin, odlucalar (Pyralidae) fəsiləsinə mənsubdur. Zərərvericiyə əsasən Rusiya, Ukrayna, Moldova, Türkiyə, Qazaxstan və Azərbaycanda rast gəlinir. Odlucanın yetkin fərdi qanadları açılan zaman 20-27 millimetr böyüklüyündə olur. Qabaq qanadları arxa qanadlara nisbətən uzunsovdur, boz rəngdədir, yaxud bozumtul-sarıdır. Arxa qanadları nisbətən enlidir, ağ rəngdədir və tutqun damarları vardır. Yumurtası südvarı-ağ rəngdə olmaqla uzunsovdur. Uzunluğu 0.8 millimetrdir. Günəbaxan bitkisinin çiçəklənməsi dövründə puplardan kəpənəklər uçmağa başlayır və gecə həyat tərzi keçirməklə mürəkkəbçiçəklinin və günəbaxan çiçəyinin nektar şirəsi ilə qidalanır. Dişi kəpənəklər 250-300 ədəd yumurta qoya bilir. Yumurtalar çiçək tozcuqları kənarının daxilinə bir-bir qoyulur. Qoyulmuş yumurtalardan 4-5 gündən sonra tırtıllar çıxır. Tırtılı açıq-bozdur, başı sarı-qonurdur 16 ayaqlıdır. Yumurtadan yeni cıxmış tırtıl 1.1-2.1mm uzunluqda olur. Tırtılın arxasında uzununa üç zolaq vardır, bədənin yanlarında qara rəngli nəfəsliklər olur.Tırtıl axırıncı yaşda torpağın üst qatında qışlayır və 15 millimetrə qədər uzunluqda ola bilir. 5 yaş dövrü kecirir. Tırtılın inkişafı 3-4 həftəyə başa çatır. İnkişafını başa çatdırmış tırtıllar torpağa düşərək puplaşmağa gedir. Yazın axırları, yayın əvvəllərində qışlamış tırtıllar puplaşır. Pupu 10-12 millimetr uzunluqda, açıq-qəhvəyi rəngdə olur. Pup dövrü 11-15gün çəkir. Zərərverici bitkiyə tirtıl mərhələsində zədələyir və məhsuldarlıq xeyli aşağı düşür. Tırtıllar ilk əvvəllər çiçəklərin müxtəlif hissələri ilə, üçüncü yaşdan sonra isə toxumların nüvəsi ilə qidalanır. Zədələnən günəbaxan səbətlərinin ayrı-ayrı hissələri hörümçək torlarına bənzər torlarla ilə əhatə olunur (Васильев В.П. 1987).

TədqiQat metodu

İşimizin məqsədi Gəncə-Daşkəsən iqtisadi rayon şəraitində günəbaxan bitkisində yayılmış zərərvericilərin növ tərkibini öyrənməkdir. Metodikaya uyğun olaraq ayda 2 dəfə olmaqla marşrut müşahidə-hesabat işləri aparılmışdır. Stasionar sahə kimi BM və TBETİ-nin 1,5 ha olan təcrübə sahəsi seçilmişdir. Təcrübə sahəsində "Oreşek" sortu əkilmişdir. Müşahidələr zamanı günəbaxan bitkisinin bütün orqanlarına (kök, gövdə, yarpaq və çiçəyə) baxılmışdır. Günəbaxan bitkisinin zərərvericiləri şərti olaraq 3 yerə bölmək olar: torpaq (kök), gövdə, yarpaq və çiçək (səbət). Bu məqsədlə sahənin diaqonalı istiqamətində gedərək 20 nümunədə hər nümunədə 5 bitkiyə baxış keçirilmiş, tapılan

zərərvericiləri sınaq şüşəsinə və ya “Petri çaşka”-larına yığmaqla laboratoriyaya gətirilərək növ tərkibi dəqiqləşdirilmişdir.

$$P = (n \times 100)/N$$

Burada: P – yarpaq, zoğ, çiçək və meyvələrin zədələnmə faizi, %
n – zədələnmiş yarpaq, zoğ, çiçək və meyvələrin sayı, əd.
N – baxılmış yarpaq, zoğ, çiçək və meyvələrin ümumi sayı, əd.
100 – faizə çevirmə əmsalı, %

| № | Zərərvericinin adı | Dəstə | Fəsilə | Zədələdiyi orqan |
|---|---|---|---|---|
| 1 | Şıqqıldaq böcəyi Click beetle | Sərtqanadlı- Coleoptera | Şıqqıldaq böcəyi Elateridae | Kök sistemi |
| 2 | Çəmən kəpənəyi Loxostege sticticalis | Kəpənəklər- Lepidoptera | Pyraustidae | Enliqanad odlucalar Yarpaqlar, gövdə və səbət |
| 3 | Günəbaxan odlucası Homoeosoma nebulella | Kəpənəklər- Lepidoptera | Odlucalar Pyralidae | Səbət |

Nəticə

Apardığımız tədqiqatlar nəticəsində Gəncə-Daşkəsən iqtisadi rayonunda günəbaxan sahələrində başlıca zərərvericilərindən olan Şıqqıldaq böcəyi, Çəmən kəpənəyi, Günəbaxan odlucası aşkarlanmışdır. Nəticədə aprel ayında stasionar sahədə 100 bitkidən 15-də zədə və 7 məftil qurduna, 2 çəmən kəpənəyinin sürfəsinə rast gəlinmişdir. 100 bitkidə isə 10 odlucaya (tırtıla) rast gəlinmişdir. Qeyd etmək lazımdır ki, ölkədə günəbaxan sahəsi üzrə istehsal potensialını artırmaq üçün ilk növbədə bu bitkinin becərilməsinə tələb olunan aqrotexniki parametrlər və ölkənin torpaq-iqlim xüsusiyyətləri əsasında əlverişli ərazilər müəyyən edilməlidir.

ƏDƏBİYYAT SİYAHISI

S.R.Məmmədova, B.B. Xəlilova (1986). Kənd Təsərrüfatı Entomologiyası, 283-284.
M. A. Vəliyeva, E.A.Xəlilov (2020). Günəbaxan bitkisi, 298.
Васильев В.П. (1987). Вредители сельскохозяйственных культур и лесных насаждений: Урожай,.— 440
Кузнецов В.И. Т. III. Чешуекрылые. (1994). Насекомые и клещи – вредители сельскохозяйственных культур. Наука, 316
https://agroex.ru/harms/vrediteli/podsolnechnikovaya_ognyevka_homoeosoma_nebulella/
https://wikifarmer.com/tr/aycicegi-zararlilari-ve-hastaliklari/

# İQTİSADİYYAT BÖLMƏSİ

## SÜRƏTLI INKIŞAF DÖVRÜNDƏ AZƏRBAYCANIN ƏTRAF MÜHIT SIYASƏTI

**Nadir Nəsirov**
Bakı Mühəndislik Universiteti
Dövlət strukturlarında menecment
Bakı, Azərbaycan

**Xülasə**

Son yüzillikdə iqtisadiyyatın bütün sahələrinin, xüsusən sənayenin sürətli inkişafı insan fəaliyyətinin ətraf mühitə mənfi təsirinin artması və təbii sərvətlərin həddindən artıq istismarı ilə nəticələnmişdir. Ekoloji tarazlığın qorunub saxlanılması, təbii ehtiyatlardan səmərəli istifadə, su, torpaq və atmosfer havasının çirklənmədən mühafizə edilməsi qlobal problemə çevrilmişdir. İqtisadiyyatın inkişafı, demoqrafik artımı, əhalinin gəlir səviyyəsinin yüksəlməsi hesabına istehlakın artması, iqlim dəyişmələri və digər səbəblər ətraf mühitə mənfi təsirin artması ilə nəticələnmişdir. Su hövzələrinin tullantı suları ilə çirkləndirilməsi, atmosfer havasına zərərli qazların atılması, biomüxtəlifliyin azalması, torpaqların eroziyaya uğraması və şoranlaşması, tullantıların idarə olunması sahəsindəki çatışmazlıqlar mövcud ekoloji problemlər sırasında hesab olunur. Azərbaycan Respublikası zəngin təbii sərvətlərə və inkişaf etmiş sənaye sahələrinə malik olan bir dövlətdir. Lakin uzun illərdən bəri yığılıb qalmış ekoloji problemlər vaxtında öz həllini tapmadığı üçün Respublikamızın ətraf mühiti həddindən artıq çirkləndirilmişdir. Hazırda respublikamızda həllini təcili tələb edən bir sıra ekoloji problemlər vardır: su hövzələrinin, o cümlədən Xəzər dənizinin məişət və sənaye sularının tullantıları ilə çirkləndirilməsi, Xəzər dənizinin səviyyəsinin dəyişməsi ilə əlaqədar vurulan ziyanlar, atmosfer havasına zərərli qazların yol verilən normadan artıq atılması, biomüxtəlifliyin azalması, torpaqların eroziyaya uğraması və şoranlaşması, sənaye və məişət tullantılarının utilizasiyası və s. Azərbaycanda ətraf mühit problemlərinin həlli istiqamətində genişmiqyaslı işlərin görülməsi, ekoloji vəziyyətin yaxşılaşdırılmasına yönəlmiş dövlət siyasəti ölkənin uzunmüddətli inkişaf strategiyasının mühüm tərkib hissəsidir.

**Açar sözlər: Paris sazişi, ekoloji siyasət, yaşıl iqtisadiyyat, layihələr**

**Summary**

In the last century, the rapid development of all areas of the economy, especially the industry, resulted in the increase of the negative impact of human activity on the environment and overexploitation of natural resources. Preserving the ecological balance, efficient use of natural resources, protection of water, soil and atmospheric air from pollution has become a global problem. Economic development, demographic growth, increase in consumption due to increase in the income level of the population, climate changes and other reasons have resulted in an increase in the negative impact on the environment. Pollution of water bodies with waste water, release of harmful gases into the atmosphere, reduction of biodiversity, soil erosion and salinization, deficiencies in the field of waste management are among the current environmental problems. The Republic of Azerbaijan is a country with rich natural resources and developed industries. However, the environmental problems of our Republic have been excessively polluted because the ecological problems that have been accumulated for many years have not been solved in time. At present, there are a number of environmental problems in our republic that require urgent solution: pollution of water bodies, including the Caspian Sea, by household and industrial water waste, damages caused by changes in the level of the Caspian Sea, emission of harmful gases into the atmosphere in excess of the permissible norm, reduction of biodiversity, soil erosion and salinization, disposal of industrial and household waste, etc. Carrying out large-scale work in the direction of solving environmental problems in Azerbaijan, the state policy aimed at improving the environmental situation is an important component of the country's long-term development strategy.

Keywords:Paris agreement, environmental policy, green economy, projects

**Giriş**

Azərbaycan Respublikasının ekoloji siyasətinin əsas mahiyyəti insanların ekoloji təmiz mühitdə yaşamasını təmin etmək məqsədilə ekosistemlərin qorunması, təbii sərvətlərdən səmərəli istifadə olunması *ilə dayanıqlı inkişafın təmin edilməsi,* ətraf mühitə minimal zərərli təsir, onun ilkin vəziyyətinin bərpası və qorunmasından ibarətdir. Hər bir ölkənin özünəməxsus ətraf mühit strategiyası və siyasət xətti olsa da, qlobal məqsədlər insanların sağlam mühitdə yaşamasının təmin edilməsi, cəmiyyətin sahib olduğu ətraf mühit dəyərlərinin qorunması və inkişafı, ətraf mühitin keyfiyyətinin yaxşılaşdırılmasına istiqamətlənmişdir. Azərbaycanda ətraf mühit problemlərinin həlli istiqamətində müvafiq tədbirlərin görülməsi, ekoloji vəziyyətin yaxşılaşdırılmasına yönəlmiş dövlət siyasəti ölkənin dayanıqlı inkişaf strategiyasının mühüm tərkib hissəsidir. Ekoloji təhlükəsizliyin təmin olunması üçün ətraf mühitin çirklənməsinin minimuma endirilməsi və mühafizəsinin təkmilləşdirilməsi, indiki və gələcək nəsillərin tələbatını ödəmək məqsədilə təbii sərvətlərdən səmərəli istifadə, alternativ enerji mənbələrindən yararlanmaq və enerji effektivliyinə nail olmaq, qlobal ekoloji problemlər üzrə milli səviyyədə tələbatların qiymətləndirilməsi, həlli yollarının müəyyənləşdirilməsi, beynəlxalq təşkilatlarla əlaqələrin genişləndirilməsi ölkənin ekoloji siyasətinin əsas istiqamətləridir. Ölkənin ekoloji strategiyası, ətraf mühitin qorunması sahəsində fəaliyyətin koordinasiyasının gücləndirilməsi yolu ilə milli, beynəlxalq və regional səviyyələrdə təbii ehtiyatların mühafizəsi, elmə əsaslanan inkişaf prinsiplərinin tətbiqi, ölkənin iqtisadi və insan resurslarının istifadəsində davamlılığın təminatına yönəlmişdir(5).

**TƏDQIQAT METODU**

**Azərbaycan Respublikasında ətraf mühitin mühafizəsi istiqamətində həyata keçirilmiş tədbirlər**

Azərbaycan hələ 2003-cü ildə Ekoloji cəhətdən davamlı sosial-iqtisadi inkişaf üzrə Milli proqram qəbul etmişdir. Minilliyin İnkişaf Məqsədlərindən biri olan Ətraf mühitin davamlılığını təmin etmək üzrə fəaliyyət planına əsasən davamlı inkişaf prinsipləri dövlət siyasəti və proqramlarına daxil edilmişdir. Bu istiqamətdə çirklənmiş ərazilərin bərpası, meşə ilə örtülü ərazilərin miqyasının artırılması, biomüxtəlifliyin mühafizəsi, arid ərazilərdə torpaqların münbitləşdirilərək yaşıllaşdırılması, Xəzər dənizinin dəniz ətraf mühitinin qorunması, iqlim dəyişikliklərinin mənfi təsirlərinin azaldılması, hidrometeoroloji müşahidə sistemlərinin və monitorinq şəbəkəsinin modernləşdirilməsi, qanunvericiliyin təkmilləşdirilməsi, beynəlxalq əməkdaşlıq, əhalinin ekoloji şüur səviyyəsinin artırılması fəaliyyət istiqamətlərindən olmuşdur. Hazırda neft və neft məhsulları ilə çirklənmiş ərazilərin ekoloji bərpası məqsədilə "Suraxanı rayonunda keçmiş Yod-brom zavodunun lay suları ilə çirklənmiş ərazisinin ekoloji vəziyyətinin sağlamlaşdırılması və landşaftın bərpası", Heydər Əliyev Beynəlxalq Hava Limanının ərazisində "Çuxurdərə gölməçələrinin ekoloji vəziyyətinin sağlamlaşdırılması və landşaftın bərpası", "Abşeron yarımadasında çirklənmiş torpaqların inventarlaşdırılması və qiymətləndirilməsi" və s. layihələr həyata keçirilir. Bununla yanaşı tullantıların, o cümlədən plastik tullantıların idarə olunması istiqamətində müvafiq tədbirlər həyata keçirilir, tullantıların təkrar emalının təşkili üçün təşviqat işləri aparılır. Meşə ilə örtülü ərazilərin miqyasının artırılması istiqamətində aparılmış meşəsalma və meşəbərpa tədbirləri nəticəsində meşə ilə örtülü ərazilərin sahəsi hazırda ölkə ərazisinin 12 faizini təşkil edir. Son 17 ildə 152,4 min ha meşəsalma və meşəbərpa tədbirləri aparılmış, 96,445 milyon ağac əkilmişdir. Qeyri-meşə fondu torpaqlarında yaşıllaşdırma tədbirləri çərçivəsində arid ərazilərlə səciyyələnən ərazilərdə ümumilikdə 4438 hektar ərazidə 5 386 min ağac əkilmişdir. Yaşıllaşdırma layihələrinin davamlılığının təmin edilməsi üşün ərazilər damcılı suvarma sistemləri ilə təmin olunmuşdur. Suvarmada alternativ su mənbələrindən - duzsuzlaşdırılmış dəniz suyundan, həmçinin tullantı sularından təkrar istifadə olunur. Bundan başqa, məhsul verən ağaclara, o cümlədən zeytun və digər meyvə ağaclarının əkilməsinə üstünlük verilir. Xüsusi mühafizə olunan təbiət ərazilərinin ümumi sahəsi 2003-cü ildəki 478 min hektardan 893 min hektara qədər artırılaraq ölkə ərazisinin 10,3%-nə çatdırılmışdır (10 milli park, 10 dövlət təbiət qoruğu və 24 dövlət təbiət yasaqlığı) (7). Su hövzələrində bioloji resursların artırılması istiqamətində son 17 ildə 7 milyard ədədə yaxın balıq, o cümlədən nərə cinsli və qızıl balıq körpələri yetişdirilərək su hövzələrinə buraxılmışdır. Müasir dövrdə enerji təhlükəsizliyi və ətraf mühitin çirklənməsi, qlobal iqlim dəyişmələri bəşəriyyəti narahat edən əsas problemlərdəndir. Bütün dövlətlər özlərinin yanacaq-enerji balansına yeni enerji mənbələrinin cəlb edilməsinə çalışırlar. Bu yarışda

külək, günəş, biokütlə, dalğa, qabarma-çəkilmə, kiçik çayların hidroloji enerjisi kimi qeyri-ənənəvi enerji mənbələri xüsusi yer tutur. Ölkədə iqtisadiyyatın bütün sahələrinin inkişafı ilə bağlı mövcud olan ekoloji problemlərin həll edilməsi üçün təmiz texnologiyaların tətbiqinə yer verilir. "Yaşıl iqtisadiyyata" sərmayələrin cəlb olunması üçün ekoloji cəhətdən təmiz alternativ enerji mənbələrindən geniş istifadə etmək, istilik effekti yaradan qazları azaltmaq, sənaye, nəqliyyat, tikinti və digər sahələrdə enerjidən səmərəli istifadə üzrə tədbirlər həyata keçirilir. Azərbaycan iqlim dəyişmələrinin təsirlərinə yüksək dərəcədə həssas bir ölkədir və ölkə artıq iqlim dəyişmələrinin mənfi təsirlərini - daşqınlar, sellər, quraqlıq, istilik stressləri və s. kimi təbiət hadisələrinin sayının artmasını özündə hiss edir. Bu da adekvat adaptasiya tədbirlərini ön plana çəkir. Bununla bağlı iqlim dəyişmələrinə həssas olan sahələrdə ətraf mühitə dost texnologiyalar tətbiq etməklə bir sıra infrastruktur layihələri - su anbarları və elektrik stansiyalarının inşası, meşəsalma və su layihələri həyata keçirilir. BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının 2015-ci ildə Paris şəhərində keçirilmiş 21-ci Tərəflər Konfransında qlobal iqlim dəyişmələri üzrə 2020-ci ildən sonrakı dövr üçün iqlim dəyişmələri ilə mübarizə sahəsində qlobal səviyyəli beynəlxalq-hüquqi sənəd olan Paris Sazişi qəbul edilmişdir. Paris Sazişi, Konvensiyanın həyata keçirilməsinin genişləndirilməsi ilə davamlı inkişafa nail olmaq və yoxsulluğu aradan qaldırmaq üzrə səylər kontekstində iqlim dəyişmələri təhlükəsinə qlobal cavab tədbirlərini gücləndirmək məqsədini daşıyır. Azərbaycan özünün nəzərdə tutulan müəyyən edilmiş milli töhfələri sənədində ölkənin milli şəraitini, gələcək inkişaf perspektivlərini və milli maraqlarını nəzərə alaraq, qlobal iqlim dəyişmələrinə təsirlərin yumşaldılması təşəbbüslərinə özünün töhfəsi olaraq baza ili olan 1990-cı il ilə müqayisədə 2030-cu ilə istilik effekti yaradan qaz emissiyalarının 35% azalma səviyyəsində saxlanılmasını hədəf kimi götürmüşdür. Son illərdə Azərbaycanda qanunvericiliyin təkmilləşdirilməsi və mövcud normativ hüquqi aktların ölkənin qoşulduğu beynəlxalq müqavilələrin müddəalarına, həmçinin Avropa İttifaqının qanunvericiliyinə uyğunlaşdırılması istiqamətində tədbirlər görülmüşdür. Ətraf mühitə dair qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində bir sıra yeni qanunlar qəbul edilmiş, mövcud qanunlara əlavə və dəyişikliklər edilmişdir. Qanunvericilik əsasən atmosfer havası, su ehtiyatları, məişət və istehsalat tullantıları, su bioresursları, biomüxtəlifliyin qorunması sahələrini əhatə etmişdir. Yeni qanunların qəbul edilməsi, mövcud qanunlara əlavə və dəyişikliklərin edilməsi ilə bərabər, həmçinin onların icrasının təmin edilməsi məqsədilə müvafiq normativ aktlar, qaydalar hazırlanıb təsdiq olunmuşdur. Mövcud problemlərin həll edilməsi üçün Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən beynəlxalq təşkilatlarla, donor ölkələrlə əlaqələrin genişləndirilməsinə xüsusi əhəmiyyət verilir. Belə ki, BMT-nin İnkişaf, Ətraf Mühit, Sənayenin İnkişafı proqramları, NATO, Qlobal Ekoloji Fond, Avropa İqtisadi Əməkdaşlıq və İnkişaf təşkilatı, İqtisadi Əməkdaşlıq təşkilatı, Dünya Bankı, Asiya bankı, Ümumdünya Vəhşi Təbiət fondu və s. təşkilatlarla əməkdaşlıq davam etdirilir. Bununla bərabər müvafiq sazişlər əsasında inkişaf etmiş ölkələrlə iki tərəfli əməkdaşlıqlar qurulur. Ətraf mühit sahəsində beynəlxalq müqavilələrə qoşulmağa da böyük diqqət yetirilir. Belə ki, Azərbaycan Respublikası bu günə kimi 21 konvensiyaya qoşulmuş, müvafiq protokollar imzalamışdır (3)

**2.1 Ətraf mühitin mühafizəsi barədə tədbirlər, proqramlar, layihələr.**

Ətraf mühitin mühafizəsi və təbii sərvətlərdən səmərəli istifadə istiqamətində "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası", "Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik", "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı", "Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsinə dair 2020-2022-ci illər üçün Tədbirlər Planı", "Yerin təkinin geoloji öyrənilməsinə və mineral-xammal bazasından səmərəli istifadəyə dair 2020-2024-cü illər üçün Dövlət Proqramı" və digər proqramlar çərçivəsində tədbirlər həyata keçirilir. Bununla yanaşı, "Azərbaycan Respublikasında meşələrin mühafizəsi və davamlı inkişafına dair 2022-2030-cu illər üçün Dövlət Proqramı"nın və "Su ehtiyatlarından səmərəli istifadəyə dair Milli Strategiya"nın layihələri hazırlanır.
Eyni zamanda, qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində, hüquqi bazanın möhkəmləndirilməsi məqsədilə addımlar atılır.

"Təbii ehtiyatlara görə ödəmələrin, çirkləndirici maddələrin təbii mühitə atılmasına görə ödəmələrin tətbiqi və həmin ödənişlərdən əmələ gələn vəsaitdən istifadə haqqında" Qərarda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1992-ci il 3 mart tarixli 122 nömrəli Qərarında dəyişiklik edilməsi barədə" Nazirlər Kabinetinin 2022-ci il 17 avqust tarixli, 308 nömrəli

Qərarı qəbul edilmişdir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 17 mart tarixli Qərarı ilə "Azərbaycan Respublikasında sudan ödənişli istifadə Qaydaları" təsdiq edilmişdir.

Ölkə üzrə bərk məişət tullantılarının idarə edilməsi sisteminin müasir standartlara uyğun təşkili, müvafiq infrastrukturun yaradılması məqsədilə, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 27 noyabr tarixli 675s nömrəli Sərəncamı ilə "İşğaldan azad edilmiş ərazilər daxil olmaqla, ölkə üzrə bərk məişət tullantılarının idarə edilməsi ilə əlaqədar Komissiya" yaradılmışdır (6).

**2.2 Azərbaycanda Ətraf Mühitin Qorunması üçün Qanunvericilik Bazası**

Azərbaycanda ətraf mühitin qorunması üçünmöhkəm bir qanunvericilik bazası mövcuddur. Bu baza Azərbaycan Respublikasının Konstitusiyası, ətraf mühitlə bağlı qanunlar və müvafiq normativ-hüquqi aktlar əsasında formalaşır. Ölkədə təbiətin, təbii sərvətlərin, ekoloji tarazlığın qorunması, çirklənmənin, tullantıların və digər ekoloji təhlükəli halların qarşısının alınması, vətəndaşların ekoloji təhlükəsizliyinin təmin edilməsi prioritet istiqamətlər kimi müəyyən edilmişdir.

1. Azərbaycan Respublikasının Ətraf Mühitin Mühafizəsi haqqında Qanunu (1999-cu il) - bu qanun ətraf mühitin mühafizəsi, təbii ehtiyatlardan istifadə, ətraf mühitin çirklənməsinin qarşısının alınması və onun təmizlənməsi sahəsində əsas normaları müəyyənləşdirir.
2. Ətraf Mühitin Qiymətləndirilməsi haqqında Qanun (2018-ci il) - bu qanun ətraf mühitə təsirlərin qiymətləndirilməsi və təsdiqlənməsi prosedurlarını tənzimləyir.
3. Azərbaycan Respublikasının Meşələr Məcəlləsi (1997-ci il) - bu məcəllə meşələrin qorunması, bərpası və istifadəsi sahəsində münasibətləri tənzimləyir.
5. Su Məcəlləsi (1997-ci il) - bu məcəllə su ehtiyatlarının qorunması, istifadəsi və bərpası məsələlərini tənzimləyir
6. Ətraf mühitin mühafiəzəsi və təbii ehtiyatlardan istifadəyə dair digər qanunlar və normativ-hüquqi aktlar.

**2.3. 2023-2025-ci illər üçün ekoloji siyasətin əsas istiqamətləri**

Təmiz ekoloji mühitin yaradılması istiqamətində su ehtiyatlarından səmərəli istifadə, Xəzər dənizinin ekoloji mühitinin mühafizəsi, tullantıların idarə olunması, iqlim dəyişmələrinin mənfi təsirlərinin azaldılması, müşahidə və monitorinq sistemlərinin modernləşdirilməsi, atmosfer havasının mühafizəsi, biomüxtəlifliyin qorunması, ekoturizmin və akvakulturanın inkişafı, meşə örtüyünün, yaşıllıqların mühafizəsi və artırılması, çirklənmiş ərazilərin bərpası, torpaq ehtiyatlarının münbitliyinin artırılması, mineral-xammal bazasının genişləndirilməsi və təbii sərvətlərdən səmərəli istifadə, ekoloji təfəkkürün artırılması əsas prioritet istiqamətlərdəndir.

**2023-2025-ci illər üçün ekoloji siyasətin əsas istiqamətləri üzrə həyata keçiriləcək tədbirlər:**

- tullantıların, o cümlədən polietilen və plastik qablaşdırma materiallarının idarə olunmasında mütərəqqi üsullardan istifadə, istehsalçıların genişləndirilmiş məsuliyyəti prinsipinin tətbiqi;
- tullantıların uçotu sisteminin təkmilləşdirilməsi, tullantıların idarə edilməsi ilə bağlı maddi-texniki bazanın və infrastrukturun müasirləşdirilməsi;
- faydalı qazıntıların hasilatı prosesində müvafiq qanunvericiliyin tələblərinin icrasına nəzarətin gücləndirilməsi;
- BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Paris Sazişindən irəli gələn öhdəliklərin yerinə yetirilməsi üçün aidiyyəti dövlət qurumları tərəfindən istilik effekti yaradan qaz tullantılarının azaldılması üzrə tədbirlərin görülməsi;
- atmosfer havasının mühafizəsi, o cümlədən avtomobil parkının yenilənməsi və ekoloji təmiz nəqliyyatdan istifadənin genişləndirilməsi, yaşıllıqların artırılması və mühafizəsi;
- iqtisadiyyatın bütün sahələrinin inkişafı prosesində ətraf mühitin mühafizəsi tələblərinin ön plana çəkilməsi;
- biomüxtəlifliyin mühafizəsi və xüsusi mühafizə olunan təbiət ərazilərinin infrastrukturunun inkişafı;
- ekoturizmin inkişafı;
- istehsal müəssisələrində aztullantılı və tullantısız qabaqcıl ekoloji dost texnologiyalarından istifadənin genişləndirilməsi;
- "Yaşıl iqtisadiyyat"ın inkişafı, xüsusilə kiçik və orta müəssisələrin fəaliyyətinin yaşıllaşdırılması;
- suların dövlət uçotunun təkmilləşdirilməsi;

- yerin təkindən istifadənin norma və qaydalarının təkmilləşdirilməsi, hüquqi bazanın möhkəmləndirilməsi;
- ekoloji standartların beynəlxalq tələblərə uyğunlaşdırılması və sertifikatlaşdırma sisteminin təkmilləşdirilməsi;
- lay sularının ərazidən kənarlaşdıraraq idarə olunması, neft şlamlarının zərərsizləşdirilməsi və ya anbarlaşdırılması;
- neft məsulları və digər maddələrlə çirklənmiş ərazilərin – torpaqların, göl və gölməçələrin bərpası;
- meşə sahələri barədə məlumatların dəqiqləşdirilməsi, meşə quruluşu (inventarizasiya) işlərinin aparılması;

**Nəticə**

2025-ci il üçün strateji baxışı ölkə ərazisində ətraf mühitlə bağlı mövcud problemlərin həll olunması ilə ekoloji vəziyyətin yaxşılaşdırılması, ətraf mühit komponentlərinin mühafizə edilməsi, əhalinin təbii ekoloji mühitdə yaşamaq hüququnun təmin edilməsi və təbii sərvətlərdən səmərəli istifadə olunmasına nail olmaqdır. Azərbaycanın sürətli iqtisadi və sosial inkişafı fonunda, ətraf mühitin qorunması və bərpası dövlət siyasətinin əsas istiqamətlərindən biridir. Ölkə rəhbərliyi ətraf mühitin mühafizəsi, təbii ehtiyatlardan dayanıqlı istifadə və ətraf mühitin keyfiyyətinin yaxşılaşdırılması üçün mühüm tədbirlər həyata keçirir.

Son illərdə ölkədə ətraf mühitin mühafizəsi, təbii ehtiyatlardan istifadənin tənzimlənməsi və idarə edilməsi sahəsində səmərəli qanunvericilik bazası formalaşdırılmışdır. Bu qanunlar və normativ aktlar ətraf mühitin qorunması və səmərəli idarə edilməsi üçün hüquqi və institusional mexanizmlərin yaradılmasına yönəlib.

**Ədəbiyyat siyahısı**

1) Azərbaycan Respublikasının Ətraf mühitə dair qanunvericilik toplusu. Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi. 2002. 1-ci cild 404 səh; 2-ci cild 424 səh.
2) Əliyeva R.Ə., Mustafayev Q.T. Ekologiya. Bakı – 2004, 432 s.
3) Məmmədov Q.Ş. Azərbaycanın ekoetik problemləri: elmi, hüquqi, mənəvi aspektlər. Bakı – «Elm» - 2004, 377 s.
4) http://www.anl.az/down/meqale/azerbaycan/2010/iyun/123730.htm
5) https://eco.gov.az/az/ekoloji-siyaset/azerbaycan-respublikasinin-ekoloji-siyaseti

# AZƏRBAYCANDA NİKAH VƏ BOŞANMALARIN DİNAMİKASI VƏ İQTİSADİ ARTIM

**MƏRYAM ƏDİLXANOVA**

*Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)*
*Beynəlxalq İqtisadiyyat Məktəbi (ISE) / Beynəlxalq Magistratura və Doktorantura Mərkəzi*
*Beynəlxalq iqtisadiyyat və biznes fakültəsi/ İqtisadiyyat elmləri (ekonometriya;iqtisadi statistika)*
maryam_adilkhanova@unec.edu.az
*BAKI, AZƏRBAYCAN*

**Xülasə:**

Bu məqalə Azərbaycanda nikah və boşanmaların dinamikasını iqtisadi böyümə kontekstində təhlil etmək məqsədi daşıyır. Beynəlxalq ədəbiyyatda nikah və boşanmaların makroiqtisadi amillərdən, xüsusilə də iqtisadi artımdan asılılığı geniş şəkildə öz əksini tapır. Azərbaycanla bağlı isə bu istiqamətdə tədqiqatlar olduqca məhdud saydadır və ya əlçatan deyil. Azərbaycanda əhalinin artım dinamikasında son yarım əsrdə müşahidə olunan azalma dinamikası, həmçinin də son onillikdə

boşanmaların sayında müşahidə olunan artış bu istiqamətdə ətraflı tədqiqatların aparılmasını zəruri edir. İqtisadi sabitlik nikahları davamlılığı və ya boşanma hallarını araşdırarkən nəzərə alınmalı ən vacib amillərdən biridir. Təqdim olunan işdə 2000-2022-ci illər üçün Azərbaycanda olan nikah və boşanmaların dinamikasının iqtisadi artımla müqayisəli təhlili aparılır, korelyasiya əlaqəsi qiymətləndirilir. Alınan nəticə onu göstərir ki, Azərbaycanda real iqtisadi artım (1000 nəfərə düşən) nikahların sayına müsbət, boşanmaların sayı, həmçinin də boşanma nisbətinə (boşanma sayının nikah sayına olan nisbəti) isə mənfi təsir göstərir. Aldığımız nəticə bu mövzu ilə bağlı digər nümunələrdə aparılan müxtəlif tədqiqatların nəticələrini dəstəkləyici mahiyyətdədir.

**Açar sözlər: nikah, boşanma, boşanma nisbəti, iqtisadi artım**

**Abstract:**

This article aims to analyze the dynamics of marriage and divorce in Azerbaijan in the context of economic growth. The dependence of marriage and divorce on macroeconomic factors, especially economic growth, is widely reflected in the international literature. Regarding Azerbaijan, the number of studies in this direction is quite limited or unavailable. The dynamics of decline in the dynamics of population growth in Azerbaijan over the last half century, as well as the increase in the number of divorces in the last decade, make it necessary to carry out detailed research in this direction. Economic stability is one of the most important factors to consider when looking into marriage sustainability or divorce. In the presented work, a comparative analysis of the dynamics of marriages and divorces in Azerbaijan with economic growth for the years 2000-2022 is carried out, and the correlation relationship is evaluated. The obtained result shows that the real economic growth (per 1000 people) in Azerbaijan has a positive effect on the number of marriages, and the number of divorces, as well as the divorce rate (the ratio of the number of divorces to the number of marriages) has a negative effect. Our result supports the results of various studies conducted in other samples related to this topic.

**Keywords**: marriage, divorce, divorce rate, economic growth

**Giriş**

Ənənəvi cəmiyyətdən müasir cəmiyyətə keçid prosesinin əsasən 20-ci əsrin əvvəllərində başladığı Azərbaycanda SSRİ dövründə əhalinin təbii artımı kifayət qədər yüksək olmuşdur. Oxşar tendensiya müstəqilliyin bərpasından sonrakı dövrdə də davam etmiş, Azərbaycan əhalisinin sayı son illərdə 10 milyon nəfəri keçmişdir. Bütün bunlar özlüyündə müsbət hal olsa da son illərdə ölkədə boşanmalar və nikahların dinamikası, xüsusilə də boşanma nisbətinin artım tempi narahatedicidir.

Ölkə iqtisadiyyatının inkişafının retrospektiv təhlili göstərir ki, 1994-cü ilə qədər davam edən iqtisadi durğunluq növbəti onillikdə neft strategiyasına əsaslanan quruculuq, 2005-ci ildən sonra isə neft bumu dövrünü yaşamışdır (Alıyev və Qasımov, 2018). Ölkədə 2016-cı il (neft qiymətlərində kəskin azalma və ölkə valyutasının devalvasiyası sonrasında) və 2020-ci (Covid-19 pandemiyası dövrü) il xaricində hər zaman müsbət real iqtisadi artım qeydə alınmışdır. Bu isə ölkədə iqtisadi böyümə ilə nikah və boşanmaların sayı, o cümlədən boşanma nisbəti arasında əlaqənin mövcudluğu barədə suallar yaradır. Mövcud ədəbiyyat nəzərdən keçirildikdə bu istiqamətdə tətbiqi tədqiqatların əsas etibariylə aparılmadığı aydın olur.

Boşanma ciddi problemlər yaradan və bütün dünyada fərdlərə, ailələrə və cəmiyyətə təsir edən bir hadisədir. Sosial problem kimi boşanmanın bəzi əsas aspektləri bunlardır: sosial təsir, iqtisadi nəticələr, uşaqlara təsiri, hüquqi və inzibati mürəkkəblik. Boşanma hər iki tərəf üçün, xüsusən də ailə gəlirlərinin azalması və xərclərin artması ilə üzləşə bilən qadınlar və uşaqlar üçün maddi problemlərə səbəb olur. Boşanmış şəxslər maddi təminatsızlığa və yoxsulluğa səbəb ola biləcək əmlak bölgüsü, aliment ödənişləri və ayrı-ayrı ev təsərrüfatlarının saxlanması kimi çətinliklərlə üzləşə bilərlər.

İqtisadi artım demoqrafik meyllərə, doğum əmsallarına, ölüm nisbətlərinə, miqrasiya modellərinə, urbanizasiyaya, təhsil və məşğulluq imkanlarına dərindən təsir göstərir. İqtisadi artım və demoqrafik göstəricilərin qarşılıqlı əlaqəsini başa düşmək əhalinin dəyişməsi ilə bağlı sosial, iqtisadi və ekoloji problemlərin həlli üçün vacibdir. Sürətlə dəyişən dünyamızın mürəkkəbliklərini gəzərkən, demoqrafik mənzərənin formalaşmasında iqtisadi artımın əsas rolunu dərk etmək çox vacibdir.

Evliliklərin sayının azalması, boşanmanın sayının artması nisbəti Azərbaycanda demoqrofik problem olmaqla yanaşı həm də sosial problemdir. Boşanmaların sayının artması yalnızca ailədaxili bir problem deyil və bu hadisə insanların iş həyatında əməkdaşlıq imkanlarına və məsuliyyət götürməsinə də mənfi təsir göstərir. Aparılan tədqiqatın əsas məqsədi nikah və boşanmaların iqtisadi

artıma olan təsirini qiymətləndirməkdir. Nikahın pozulması təkcə ailə daxilində deyil, həm də peşəkar müstəvidə əməkdaşlıq və məsuliyyətin bölüşdürülməsi qabiliyyətinin azalmasını ifadə edir.

**TƏDQIQAT METODU**

İqtisadi artım və demoqrafik vəziyyət arasında əlaqə mövcud ədəbiyyatda kifayət qədər geniş tədqiq olunmuşdur. Nikah və boşanmaların dinamikası, xüsusilə də boşanmaların nikah sayına nisbəti iqtisadi artım kontekstində tədqiq olunmaq üçün mühüm əhəmiyyət daşıyan məsələlərdən biridir. Mövcud tədqiqatlar bu iki göstərici arasında müsbət (Hill, 2015) və mənfi (Edin və Reed, 2005) olmaqla bəzən tədqiq olunan ölkə nümunəsindən asılı olaraq əlaqənin xüsusiyyətinin dəyişdiyini göstərir. Schneider və Hastings (2015) ABŞ-da iqtisadi tənəzzül dövrünün bir çox ailələrə mənfi təsir göstərdiyini və buna görə də əhəmiyyətli evlilik uğursuzluqlarına səbəb olduğunu müşahidə etmişdir. Bunun səbəbi ondan ibarətdir ki, bir çox ailə fərdləri ailələrini təmin edəcək əsas ehtiyacları ödəyə bilmir. Edin və Reed (2005) qeyd edirlər ki, nikah sabitliyi adətən yüksək iqtisadi standartlarla əlaqələndirilir. Lakin iqtisadi gözləntilərin reallaşmadığı və ya qeyri-adekvat olduğu halda münaqişə yarana bilər və bu da boşanmaya səbəb ola bilər. Bundan əlavə, yoxsul həyat standartları və iqtisadi şərait nikahlara və evlilik nisbətinə mənfi təsir göstərən əhəmiyyətli faktor kimi təsvir edilmişdir. Əksinə, Hill (2015) çətin iqtisadi vəziyyətlərdə başlayan evliliklərin birdən-birə pis iqtisadi vəziyyətdə olanlarla müqayisədə davamlı olma ehtimalının daha yüksək olduğunu iddia edir.

Bundan əlavə, iqtisadi amillərin evliliyə təsirini araşdıran mövcud tədqiqatlar iqtisadi sabitliyin nikahın davamlılığında əhəmiyyətli rol oynadığını vurğulayır (Baghestani və Malcolm, 2014; González-Val and Marcén, 2018). Beləliklə, ailənin gəliri yaxşılaşdıqda bir çox evliliklərdə əhəmiyyətli dərəcədə müsbət nəticələr müşahidə olunur. Herbst (2011) iddia edir ki, fərdin gəlir vergisindəki artım nikahın müvəffəqiyyəti üçün kifayət qədər əhəmiyyətli bir mənfi cəhətə malikdir və bununla da boşanma nisbətini artırır. Tədqiqat fərdlər gəlir vergisinin artması səbəbindən fərdlərin evlilikdən yayındığı nəticəsinə gəlir (Herbst, 2011).

İqtisadiyyatın vəziyyəti evliliyə necə təsir edir? Bekkerin nikah modelinə görə (Becker, 1981) nikahın faydaları ixtisaslaşmadan irəli gəlir, kişilər bazar məhsulunda, qadınlar isə evdə istehsalda ixtisaslaşırlar. Bekkerin modelinə görə, subay qadınlar digər alternativlərindən, yəni mövcud gəlirlərini saxlamaqdan daha çox faydası varsa, evlənirlər. Bekkerə görə iqtisadi tənəzzüllər həm də kişilərin məşğulluğunun səviyyəsini aşağı salmaqla nikahlı kişilərin (bazar istehsalında ixtisaslaşa bilən kişilər) sayını azalda bilər ki, bu da öz növbəsində nikah nisbətini aşağı sala bilər.

Bir çox tədqiqatçılar iqtisadiyyatın vəziyyəti ilə evlilik arasındakı əlaqəni araşdırıb. Blau və digərləri Kahn və Waldfogel (2000) və Wood (1995) əmək bazarı perspektivlərinin azalmasının aşağı gəlir qrupları arasında müşahidə olunan nikahların azalmasına səbəb ola biləcəyi dərəcəsini qiymətləndirmək üçün fərdi səviyyədə məlumatlardan istifadə edir. Başqa tədqiqatlarda kişilərin nisbi gəlirinin (Watson və McLanahan, 2010; Loughran, 2002) və qadınların iş şəraitinin (Bitler və digərləri, 2004) nikahların stabilliyində əhəmiyyəti vurğulanmışdır.

**Azərbaycanda nikah və boşanmaların dinamikası**

Azərbaycanda 21-ci əsrdə qeydə alınan nikah və boşanmaların dinamikasının təhlili iqtisadi artımın ailələrə təsiri baxımından mühüm əhəmiyyət kəsb edir (bax Şəkil 1). Şəkil 1-də 2000-2022-ci illər üçün Azərbaycanda hər 1000 nəfərə düşən nikah (sol panel) və boşanmaların sayı verilmişdir. İlkin təhlil göstərir ki, ölkədə nikahların sayı 2000-ci ildə 39611-dəm (hər min nəfər 5,0 nikah) 2007-ci ildə 81758-ə (hər min nəfərə 9,5 nikah) qədər artmışdır. 2008-2010-cu illərdə kiçik bir fərqlə artıb-azalsa da, 2010-2014-cü illər arasında əhalinin hər 1000 nəfərinə düşən nikah sayı kəskin artıb-azalmışdır və 2014-cü ildə son 10 illik dövr üçün ən yüksək göstərici - 84912 nikah (hər min nəfər 9,0 nikah) qeydə alınmışdır.

Şəkil 1. 2000-2022-ci illərdə Azərbaycanda olan nikah və boşanmaların qrafiki




Mənbə: ARDSK-nin məlumatları əsasında müəllif tərəfindən hazırlanıb.

2015-ci ildən başlayaraq nikahların sayı azalmağa başlayır və 2020-ci ildə ən aşağı göstəriciyə 35348 (hər min nəfərə 3,5 nikah) gəlib çatır. 2020-ci ildəki kəskin azalmanın səbəbi kimi Covid-19 pandemiyasını göstərmək olar. 2021 və 2022-ci illər ərzində (müvafiq olaraq 56314 (hər min nəfərə 5,6 nikah) və 61939 (hər min nəfərə 6,1 nikah)) nikahların sayında yenidən artım müşahidə olunsa da keçən 10 illik dövrə nisbətdə göstəricilər daha aşağıdır.

Digər tərəfdən, qeyd olunan dövr üçün boşanmaların dinamikasına baxdıqda görünür ki, 2000-2002-ci illər ərzində göstəricilər arasında olduqca az fərq var. Lakin 2004-cü ildən başlayaraq bu göstəricilər 6914-dən (hər min nəfərə 0,8 boşanma) 8895-ə (hər min nəfərə 1,1 boşanma) qalxmışdır və 2006-ci ildə yenidən 7817-ə (hər min nəfərə 0,9 boşanma) enmişdir. 2018-ci ilə qədər bu göstəricilər çox kiçik fərqlə artıb-azalmağa davam etmiş, son illər ərzində ən yüksək göstəricini 2021-ci ildə 17191 (hər min nəfərə 1,7 boşanma) almışdır.

2000-2022-ci illər üçün şəkil 1-dən də aydındır ki, nikahların sayı 2020-ci ildə ən aşağı olsa da, daha sonra artmağa davam etmişdir. Boşanmaların dinamikasında isə əsas etibariylə bütün illər üçün müsbət tendensiya qeydə alınır. Ən yüksək göstəricilərin son illərə təsadüf etməsi də artıq bunun böyük bir sosial problemə çevrildiyini söyləməyə əsas verir.

**İqtisadi artım və boşanma nisbəti**

Aşağıda 2000-2022-ci illər üçün Azərbaycanda iqtisadi artım və boşanma nisbətləri (boşanmaların sayının nikahların sayına olan nisbəti) təsvir olunub (bax şəkil 2). 2000-ci ildə real iqtisadi artım 6.2% olmuş və 2004-cü ilə qədər çox az bir fərqlə göstəricilərdə artım müşahidə olunmuşdur. 2005-ci ildə bu göstərici 9.3%-dən 26.4%-ə qalxaraq kəskin yüksəliş göstərmişdir. Real iqtisadi artımın ən yüksək göstəricisi son 20 il ərzində 2006-cı ildə 34.5% olmuşdur. Həmin ildən başlayaraq göstəicilərdə azalma baş verir və 25%, 10.8% və s olaraq dəyişir. 2016-cı ildə bu göstərici -3.1%-ə qədər enir və ən aşağı göstəricini 2020-ci ildə -4.2% olaraq göstərmişdir. Göstəricinin bu qədər aşağı olmasına səbəb kimi pandemiyanı göstərmək olar. Daha sonra 2021-2022-ci illərdə 5.6% və 4.6% olaraq artım müşahidə olunmuşdur.

Şəkil 2. 2000-2022-ci illərdə Azərbaycanda iqtisadi artım və boşanma nisbətlərinin müqayisəli qrafiki




Mənbə: ARDSK-nin məlumatları əsasında müəllif tərəfindən hazırlanıb.

Boşanmaların nisbəti real iqtisadi artımdan fərqli olaraq 2000-2014-ci illər arasında çox az fərqlə dəyişmişdir və 10-14% arasında göstəricilər müşahidə olunmuşdur. 2015-ci ildə isə bu göstərici 14%-dən 19%-ə qədər yüksəlmişdir. Qeyd olunan ildə dünya bazarında neftin qiymətinin kəskin azalması fonunda müşahidə olunan iqtisadi çətinlikləri, xüsusilə də ölkə valyutasının 2 dəfə devalvasiyaya uğramasını nəzərə aldıqda bu tendensiyanın müşahidə olunması təəccüb doğurmur. Sonrakı illərdə boşanmaların nisbəti tədricən artaraq ən yüksək faizi 2020-ci ildə 41% olaraq qeydə alınmışdır. 2021 və 2022-ci illərdə bu göstəricilərdə uyğun olaraq 31% və 26% ilə azalma dinamikası müşahidə olunsa da ötən 10 illik dövrlə müqayisədə kəskin artım dinamikası nəzərə çarpır.

**Korelyasiya analizi**

Cədvəl 1-də nikahların sayı, boşanmaların sayı, boşanmaların nisbəti (nikah sayının boşanma sayına olan nisbəti) və real iqtisadi artım arasında korelyasiya analizi. Cədvəl 2-dən də aydın olduğu kimi nikahlar və boşanmalar arasında korelyasiya 0.457065-dir yəni müsbət korelyasiya mövcuddur.

Cədvəl 1. Verilən göstəricilər arasında korelyasiya analizi

| | Real iqtisadi artım | Boşanmaların nisbəti | Boşanmalar | Nikahlar |
|---|---|---|---|---|
| Real iqtisadi artım | 1.000000 | -0.528177 | -0.557371 | -0.060648 |
| Boşanmaların nisbəti | -0.528177 | 1.000000 | 0.742371 | -0.105959 |
| Boşanmalar | 0.252531 | -0.484648 | 1.000000 | 0.457065 |
| Nikahlar | -0.463327 | 0.731182 | 0.457065 | 1.000000 |

Mənbə: ARDSK-nin məlumatları əsasında müəllif tərəfindən hazırlanıb.

Qeyd edək ki, $0 < |r| < 1,$ korelyasiya əmsalı 1-ə yaxın olduqda güclü, 0-a yaxın olduqda zəif əlaqə var deməkdir. Alınan müsbət cavab müsbət korelyasiya,mənfi cavab isə mənfi korelyasiya olduğunun göstəricisidir). Real iqtisadi artım və boşanamaların nisbətində isə cavab -0.528177-dir, yəni mənfi korelyasiyaya malikdir.

Korelyasiya analizinin nəticəsi Azərbaycanda real iqtisadi artımla (1000 nəfərə düşən) nikahların sayına müsbət, boşanmaları sayına isə mənfi təsir göstərir. Nəticələrdən aydın olur ki, nikahların sayına təsir mənfi, boşanmaların sayına isə müsbət təsir göstərdiyinə görə boşanmaların nisbəti ilə real iqtisadi artım arasında əlaqə mənfidir. Əldə olunan nəticələr mövcud ədəbiyyatda qeyd olunan elmi nəticələrlə qanunauyğunluq təşkil edir.

**Nəticə**

Azərbaycanda nikah və boşanmaların sayının illər üzrə dəyişmə dinamikası, eyni zamanda boşananların say nisbətinin təhlilindən aydın olur ki, Azərbaycanda demoqrafik vəziyyətdə artım tempinin yavaşlaması, xüsusilə də boşanmaların sayının artması və nikah sayında artım dinamikasında yavaşlama fonunda qaçınılmazdır. Ola bilər ki, ölkə üçün demoqrafik problem yaxın gələcək üçün gözlənilməsin. Lakin, boşanmaların sosial-psixoloji təsirləri nəzərə alındıqda tədqiq olunan mövzunun kifayət qədər geniş əhəmiyyət daşıdığını söyləmək olar.

Aparılan ilkin təhlillərdən aydın olur ki, ölkədə nikahların sayı 2020-ci ildə ən aşağı olsa da, daha sonra artmağa davam etmişdir. Boşanmaların sayı və boşananların nisbəti dinamikasında isə əsas etibariylə bütün illər üçün artım tendensiyası qeydə alınır. Ən yüksək göstəricilərin son illərə təsadüf etməsi də artıq bunun böyük bir sosial problemə çevrilmə ehtimalını düşünməyə əsas verir.

İqtisadi artım və boşanma nisbəti arasında olan əlaqəyə baxdıqda isə görünür ki, real iqtisadi artım ilə nikahların sayı arasında müsbət, boşananların sayı arasında isə mənfi əlaqə mövcuddur. Yəni, Azərbaycanda boşanmaların iqtisadi səbəblərinin olduğunu düşünmək üçün kifayət qədər əsaslar var və bu istiqamətdə daha dərin empirik təhlillərin aparılması məqsədəuyğundur.

**Ədəbiyyat siyahısı:**

1) Aliyev, K. (2018). Fiscal policy implementation in Azerbaijan before, during and after the oil boom. *Contemporary Economics*, *12*(1), 81-93.

2) Baranowski, P., & Sztaudynger, J. J. (2019). Marriage, divorce and economic growth. *Annales. Etyka w Życiu Gospodarczym*, *22*(1), 53-67.

3) Schneider, D., & Hastings, O. P. (2015). Socioeconomic variation in the effect of economic conditions on marriage and nonmarital fertility in the United States: Evidence from the Great Recession. *Demography*, *52*(6), 1893-1915.

4) Edin, K., & Reed, J. M. (2005). Why don't they just get married? Barriers to marriage among the disadvantaged. *The Future of Children*, 117-137.

5) Hill, M. J. (2015). Love in the time of the depression: The effect of economic conditions on marriage in the Great Depression. *The Journal of Economic History*, *75*(1), 163-189.

6) González-Val, R., & Marcén, M. (2018). Unemployment, marriage and divorce. *Applied Economics*, *50*(13), 1495-1508.

7) Herbst, C. M. (2011). The impact of the Earned Income Tax Credit on marriage and divorce: Evidence from flow data. *Population research and Policy review*, *30*, 101-128.

8) Becker, G. S. (1981). Altruism in the Family and Selfishness in the Market Place. *Economica*, *48*(189), 1-15.

9) Blau, F. D., Kahn, L. M., & Waldfogel, J. (2000). Understanding young women's marriage decisions: The role of labor and marriage market conditions. *ILR Review*, *53*(4), 624-647.

10)Watson, T., & McLanahan, S. (2011). Marriage meets the Joneses: Relative income, identity, and marital status. *Journal of human resources*, *46*(3), 482-517.

11)Bitler, M. P., Gelbach, J. B., Hoynes, H. W., & Zavodny, M. (2004). The impact of welfare reform on marriage and divorce. *Demography*, *41*(2), 213-236

12)Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin rəsmi saytı : https://www.stat.gov.az/source/demoqraphy/

13)Beynəlxalq Valyuta fondunun rəsmi saytı: https://www.imf.org/en/Countries/AZE

14)Bitler, M. P., Gelbach, J. B., Hoynes, H. W., & Zavodny, M. (2004). The impact of welfare reform on marriage and divorce. *Demography*, *41*(2), 213-236.

15)González-Val, R., & Marcén, M. (2018). Unemployment, marriage and divorce. *Applied Economics*, *50*(13), 1495-1508.

# AZƏRBAYCANIN XARİCİ TİCARƏTİNİN 2002-Cİ İLDƏN SONRAKI DÖNƏMİNİN TƏHLİLİ

**LAMİYƏ NURİYEVA**

Bakı Mühəndislik Üniversiteti
İqtisadiyyat
*lnuriyeva1@std.beu.edu.az*
Xırdalan, Azərbaycan

**XÜLASƏ**

Bu məqalənin əsas məqsədi Azərbaycanın xarici ticarətinin illər üzrə vəziyyətinin təhlil etməkdir. Azərbaycan Respublikası bir çox ölkələrlə xarici ticarət əlaqəsindədir və bu əlaqələri daim inkişaf etdirir. Məqalədə 2002-ci ildən 2022-ci ilə qədər zaman aralığı götürülüb. Təhlil üçün son iyirmi illikdə xarici ticarət göstəricilərinin dinamikasının statistik icmalı təqdim edilib. Eyni zamanda ölkənin 2022-ci ildə ixrac və idxal coğrafi quruluşu təsvir edilib. Bundan əlavə olaraq ÜDM, idxal, ixrac üzrə təsviri statistika qurulub, təhlil edilib. İllər üzrə təhlilə görə xarici ticarət dövriyyəsi, idxal, ixrac və ÜDM-də müəyyən dalğalanmalar olmuşdur. Lakin son illərdə bu göstəricilərdə digər illərlə müqayisədə xeyli artım müşahidə olunub. Belə vəziyyətin olması aydındır ki, ölkə iqtisadiyyatına faydalıdır. Xarici ticarətin inkişafı iqtisadiyyatının inkişafına təsir edir. Bu da öz növbəsində əhalinin rifahının yaxşılaşdırırmasına şərait yaradır.

**AÇAR SÖZLƏR: XARİCİ TİCARƏT, İXRAC, İDXAL, ÜDM**

**ANALYSIS OF AZERBAIJAN`S FOREIGN TRADE OF THE PERIOD AFTER 2002**

**ABSTRACT**

The main purpose of this article is to analyze the state of Azerbaijan's foreign trade over the years. The Republic of Azerbaijan has foreign trade relations with many countries and is constantly developing these relations. The article covers the period from 2002 to 2022. A statistical overview of the dynamics of foreign trade indicators over the last twenty years was presented for analysis. At the same time, the geographical structure of export and import of the country in 2022 was described. In addition, descriptive statistics on GDP, import, export were created and analyzed. According to the analysis by years, there were certain fluctuations in foreign trade turnover, import, export and GDP. However, in recent years, a significant increase in these indicators has been observed compared to other years. It is clear that such a situation is beneficial to the country's economy. The development of foreign trade affects the development of the economy. This, in turn, creates conditions for improving the well-being of the population.

**KEYWORDS: FOREİGN TRADE, EXPORT, İMPORT, GDP**

## GIRIŞ

Xam Neft qiymətlərindəki dəyişikliklərin xronoloji təhlili, genelliklə, dünya iqtisadiyyatında böyük effektlər yaradan mühüm hadisələrlə bağlıdır. Örnəyin, neft bazarında irəliləyən siyasət qərarları, iqtisadiyyatın ümumi vəziyyəti, və ya bazar talebi kimi faktorlar, qiymət dinamikalarını formallaşdırır. Son illərdə isə, alternativ enerji istiqamətləri və iqtisadiyyatların yeşilləşməsi də neft qiymətlərinin dəyişkənliyini təsir edən vacibliyə qatıb.

**Qrafik 1. 2000-cı ildən 2024-cü ilə qədər OPEC xam neftinin orta illik qiyməti(barel üçün ABŞ dolları ilə)**




Mənbə: https://www.statista.com/statistics/262858/change-in-opec-crude-oil-prices-since-1960/

2000-ci ildən 2024-cü ilədək neft qiymətləri dünyanın iqtisadi və siyasi mühitində dəyişən bir çox faktorun təsiri altında dəyişdi. Əsasən, artan tələbat, siyasi münasibətlər, enerji siyasətləri, texnoloji inkişaf, və neft hasilatındakı dəyişikliklər qiymətləri təsirləyib. 2000-ci illərdə, güclü iqtisadi büyümə, ərzaq və istehsal sahələrində artan tələbat neftin qiymətlərini artırdı. Bununla birlikdə, 2008-2009 iqtisadi böhranı ilə birlikdə neftin qiymətləri sərt şekildə enəldi. Sonraları, neftin qiymətləri müxtəlif faktorlar tərəfindən təsirlənərək qeyri-sabitliyə məruz qaldı. Bunlar arasında, OPEC-in siyasi qərarları,

İran, Rusiya və Səudiyyə Ərəbistanı kimi əhəmiyyətli neft ixracçılarının siyasi münaqişələri, alternativ enerji mənbələrinin inkişafı, və pandemi ilə əlaqədar tələbatdakı azalma sayılabilir. 2020-ci ilin başlarında, COVID-19 pandemiyası neftin qiymətlərində dramatik bir enməyə səbəb oldu. Bu, müxtəlif ölkələrin karantin tədbirləri və səyahət məhdudiyyətləri nəticəsində tələbatın kəskin düşməsi ilə əlaqədar idi. Lakin, son illərdə neftin qiymətləri yenidən artmağa başladı, çünki iqtisadi bərpa, yenidən açılan sahibkarlıq, və tələbatdakı artım dəstəkləndi. Bütün bunlar, neftin qiymətləri ilə bağlı gələcəkdə də dəyişikliklər gözləməyimizi vacib edir.

1990-cı ildə İraqın Küveyti işğal etməsindən sonra Küveyt 1994-cü ilə qədər neft ixracını dayandırdı. Bu vəziyyətin nəticəsi olaraq neftin qiyməti yenidən iki dəfə bahalaşır(Elmas, 2019).

1997-2010-cu illər arasında texnoloji sənaye sahəsindəki inkişaflarla müasir sənaye iqtisadiyyatına keçidin edildiyi və bu keçidin neft sənayesində əhəmiyyətli inkişaflara səbəb olduğu görünür. Bu dövrdə Çinin neft sektorunda yaxşı bazar olması neftin qiymətinə təsir göstərmişdir. Bundan əlavə, Şərqi Asiya ölkələrində sürətli artımın dünya ölkələrində neft istehlakını xeyli artırdığı müşahidə edilib. Asiya böhranı olaraq da bilinən bu vəziyyət neft qiymətlərinin artmasına səbəb olub (Hamilton, 2011).

2011-ci ildə "Ərəb baharı" bütün Yaxın Şərqə təsir etdi. Liviya vətəndaş müharibəsi regionun ixrac balansı üçün mühüm proses inkişaf etdirdi və neft qiymətlərindədə güclü təsiri olub (Erik və Koşaroğlu, 2016).

ABŞ-ın İranın nüvə sazişindən çıxması və 2018-ci ildə İrana qarşı sanksiyaların tətbiqi neftin qiymətinin artmasına səbəb olub (https://www.aa.com.tr/tr/ekonomi/iran-yaptirimlarinin-kaldirilmasi-abddeki-artan-akaryakit-fiyatlari-icin-cozum-olmayabilir/2418831).

Covid-19 epidemiyasının qarşısını almaq üçün tətbiq edilən məhdudiyyətlər səbəbindən 2020-ci ildə neftin qiymətlərində azalma müşahidə olunub (https://www.aa.com.tr/tr/ekonomi/enerji-krizinin-dunyayi-derinden-etkilemeye-devam-edecegi-ongoruluyor/2469768)

2022-ci ildən etibarən neft qiymətləri Ukrayna-Rusiya böhranının tədarük zəncirlərinə təsir edəcəyinə dair narahatlıq səbəbiylə artmağa davam edir (https://www.bbc.com/news/business-63855030)

**Neft Qiymətlərinə Təsir Edən Amillər**

Neft qiymətlərinə təsir edən bir çox amillər var. Biz bu tədqiqat işimizdə OPEC, ABŞ dolları və Hasilat xərclərini incəliyəcəyik.

**OPEC :** OPEC daxilində siyasət və maraqlardakı fərqlər yarandığı ilk günlərdən özünü hiss etdirib. Bu qərarı OPEK-ə üzv ərəb ölkələri qəbul etdiyi vaxtda İran şahı OPEK daxilində neftin qiymətini artırmaq üçün işə başlamışdı. Bu müddət ərzində Qərbin dəstəyini alan İran şahı Körfəz bölgəsinin polisi kimi fəaliyyət göstərirdi. Belə olan halda İrana ordusunu lazımi texnika ilə təchiz etmək üçün böyük pul mənbəyi lazım idi. İran şahı bu yolla təkcə öz ölkəsindəki nüfuzunu gücləndirmək deyil, həm də bütün Körfəz bölgəsini öz nəzarəti altına almaq istəyirdi (Demir,2008).

**Cədvəl 4. OPEC ölkələrinin siyahısı və qoşulduqları il.**

| Ölkələr | Qoşulma tarixləri |
|---|---|
| Səudiyyə Ərəbistan | 1960 |
| İran | 1960 |
| İraq | 1960 |
| Venesuela | 1960 |
| Küveyt | 1960 |
| Liviya | 1962 |
| Birləşmiş Ərəb Əmirlikləri | 1967 |
| Əlcəzair | 1969 |
| Nigeriya | 1971 |
| Ekvador | 1973 |
| Qabon | 1975 |
| Anqola | 2007 |
| Ekvatorial Qvineya | 2017 |
| Konqo Respublikası | 2018 |

Mənbə. https://www.opec.org/opec_web/en/about_us/25.htm

OPEC (Organization of the Petroleum Exporting Countries), neft ixrac edən ölkələrin birgə təşkilatı olaraq tanınır və neft bazarında qiymətlərin stabilizasiyası və müəyyən edilməsi üçün fəaliyyət göstərir. Təşkilatın 1960-cı ildə qurulub.Bu ölkələr təşkilatın üzvü olaraq neft bazarındakı qiymətlərin stabilizasiyası və neftin dünya bazarında ədalətli bir şəkildə satılması üçün birgə əməkdaşlıq edirlər. OPEC ölkələri neftin dünya bazarındakı təsirini artırmaq məqsədi ilə müxtəlif siyasətləri həyata keçirir və neftin qiymətləri və hasilatının tənzimlənməsinə çalışır. Bu, qlobal enerji bazarında əhəmiyyətli bir təsir sahibi olaraq OPEC-in beynəlxalq iqtisadiyyata olan təsirini vurğulayır.

**ABŞ dolları:** 2000-ci ilə qədər ABŞ neft tələbinin əsas hərəkətverici qüvvəsi idi və ABŞ dolları indeksi neft qiymətlərinə müsbət təsir göstərirdi. 2000-ci ildən sonra Birləşmiş Ştatlar artıq neftə tələbatın əsas hərəkətverici qüvvəsi deyildi, lakin Çinin iqtisadi yüksəlişi əsas sürücü oldu və Çin hazırda dünyanın ən böyük xam neft idxalçısıdır. Qiymətləndirmə vahidi kimi dollardan istifadə neft qiymətlərində mənfi korrelyasiyanı əks etdirməyə başlayıb. Güclü dollar indeksi dövrləri adətən beynəlxalq iqtisadiyyatda, xüsusən də əmtəələrə əsas tələb mənbələri olan sənaye istehsalı ölkələrində nisbi zəiflik dövrləridir. Odur ki, dolların tsiklik güclü və zəif mövqeyinin təkamül prosesində onun beynəlxalq toplu əmtəələrə təsiri təkcə "dəyər ölçüsü" rolunu oynamır, həm də toplu mallara tələbin dəyişməsi məntiqini özündə ehtiva edir. Tarixə nəzər salsaq, 1990-cı illərdən bəri Federal Ehtiyat Sistemi üç faiz artımı dövrü yaşadı, bunların hamısı neft qiymətlərinin artmasına uyğundur. Bunun səbəbi Federal Ehtiyat Sisteminin faiz artımı dövrü və neft qiymətlərinin yüksəlməsinin həm güclü beynəlxalq makroiqtisadiyyat kontekstində olmasıdır. Onların arasında birbaşa səbəb-nəticə əlaqəsi yoxdur (Li,2021).

**Neft hasilatı xərcləri :** Neft hasilatı məsrəfləri təqribən kəşfiyyat, işlənmə xərcləri və əməliyyat xərclərindən ibarətdir. Kəşfiyyatın quruda və ya dənizdə aparılması, hasilat sahəsinin strukturu, istifadə olunan texnologiya və hasilatın miqdarı kimi amillərdən asılı olaraq hasilat xərcləri dəyişir. Ümumiyyətlə; Demək olar ki, Yaxın Şərqdə hasil edilən neft Şimal dənizi kimi regionlarda hasil edilən neftdən daha aşağı hasilat maya dəyərinə malikdir və OPEK üzvü olan ölkələr digər neft tədarük edən ölkələrlə müqayisədə daha az xərclə neft istehsal edirlər.

Yeni ehtiyatların kəşf edilməsinin çətinləşməsi, aşkar olunan ehtiyatların azalması, köhnə və yeni ehtiyatların işlənilməsi, neftin çıxarılmasının çətinləşməsi kimi səbəblərdən zaman keçdikcə neftin hasilat maya dəyəri artmışdır. İstehsal xərclərinin artması birbaşa bazar qiymətinə təsir göstərir. Neft hasilatının davam etməsi üçün bazar qiyməti artan marjinal xərcləri qarşılamaq üçün kifayət qədər yüksək olmalıdır(SOLAK,2012).

**Nəticə**

Neft qiymətlərindəki dəyişikliklər və onlara təsir edən amillər ilə bağlı elmi nəticələr, iqtisadiyyatın müxtəlif sahələrində gedən sənədləşmələrdə və araşdırmalarda aydın şəkildə ortaya qoyulmuşdur. Bu nəticələr, neft bazarının dəyişkən tərəqqisini və ona təsir edən mühüm faktorları izah edir.Neft bazarında tələb və təchizat qanunları, siyasi məsələlər, maliyyə səbəbləri, texnoloji inkişaf və s. kimi bir çox amillər ətraflı şəkildə incələnir.Müxtəlif iqtisadiyyatlar arasında siyasətə uyğun olmayan münasibətlərin neft qiymətlərinə təsiri ilə bağlı araşdırmalar da diqqət çəkir. Sanksiyalar, siyasi gərginliklər, mübahisələr və qlobal siyasi amillər neft bazarında istiqlalsızlığa səbəb ola bilər.

Hesabatlar, valyuta məzənnələrinin neft qiymətlərinə təsirini də araşdırır. Neftin dollarla satılması nəticəsində, dolların qiymətindəki dəyişikliklər neft qiymətlərini də təsir edir.`Nihayət, müxtəlif ölkələrin enerji siyasətləri və müqavilələri ilə əlaqədar araşdırmalar da əhəmiyyət kəsb edir. Bu, müxtəlif ölkələrin hasilat və idxal siyasətləri, enerji sazişləri və s. ilə bağlıdır.

Bütün bu nəticələr, neft qiymətlərindəki dəyişikliklər və onlara təsir edən amilləri aydın şəkildə izah edir və iqtisadiyyatın bu önəmli sahəsində dərinləşən anlayışa kömək edir.

**Ədəbiyyat Siyahısı**

Demir, İ. (2008). OPEC: Güçlü Bir Kartel? *Süleyman Dəmirəl Universiteti Fen-Edebiyat Fakültesi Sosyal Bilimler Dergisi, 2008* (18), 231-246.

Elmas, M. (2019). Petrol Endüstrileri ve Petrol İhraç Eden Ülkeler. Niğde Ömer Halisdemir Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi, 1(3), 29-41.

Guliyev, F. (2016). Azerbaijan: Low oil prices and their social impact. Caucasus Analytical Digest, (83).

Hamilton, J. D. (2013). Historical oil shocks. In Routledge handbook of major events in economic history (pp. 239-265). Routledge.

Li, R. (2021). Analysis of the Factors Affecting Oil Prices.

Mammadov, J. (2016). Oil price shocks and monetary policy in Azerbaijan: Challenges and opportunities. Caucasus Analytical Digest, (83), 6-11.

Solak, A. O. (2012). Petrol fiyatlarını belirleyici faktörler. Uluslararası Alanya İşletme Fakültesi Dergisi, 4(2), 117-124.

YALÇIN ERİK, N., & KOŞAROĞLU, Ş. M. (2016). TARİHSEL SÜREÇ BOYUNCA DEĞİŞEN PETROL FİYATLARI; ŞEYL GAZI ETKİSİ VE BAZI ÖNGÖRÜLER. Cumhuriyet Universitesi Journal of Economics & Administrative Sciences (JEAS), 17(2).

Proved crude oil reserves worldwide in select years from 1960 to 2022(in billion barrels),10.03.2024:https://www.statista.com/statistics/236657/global-crude-oil-reserves-since-1990/

Oil Reserves by Country 2024,12.03.2024:https://worldpopulationreview.com/country-rankings/oil-reserves-by-country

Average annual OPEC crude oil price from 1960 to 2024(in U.S. dollars per barrel), 15 mart 2024:https://www.statista.com/statistics/262858/change-in-opec-crude-oil-prices-since-1960/

Member Countries,13.03.2024: https://www.opec.org/opec_web/en/about_us/25.htm

İran yaptırımlarının kaldırılması ABD'deki artan akaryakıt fiyatları için çözüm olmayabilir, 12.11.2021:https://www.aa.com.tr/tr/ekonomi/iran-yaptirimlarinin-kaldirilmasi-abddeki-artan-akaryakit-fiyatlari-icin-cozum-olmayabilir/2418831

Enerji krizinin dünyayı derinden etkilemeye devam edeceği öngörülüyor, 10.01.2022:https://www.aa.com.tr/tr/ekonomi/enerji-krizinin-dunyayi-derinden-etkilemeye-devam-edecegi-ongoruluyor/2469768

Ukraine war: Oil prices fall back after cap on Russian crude kicks in, 5 December 2022, https://www.bbc.com/news/business-63855030 , *(Accessed 28.07.2022).*

# İŞĞALDAN AZAD EDİLMİŞ RAYONLARIN İQTİSADİ POTENSİALI VƏ İNKİŞAF PERSPEKTİVLƏRİ

**İLKİN HÜSEYNOV VÜSAL OĞLU**

Qərbi Kaspi Universiteti
Beynəlxalq turizm və ölkəşünaslıq
*ilkinhuseynov918@gmail.com*
BAKI, AZƏRBAYCAN

İşğaldan azad edilmiş rayonların iqtisadi potensiali və inkişaf perspektivləri, Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi prosesində əhəmiyyətli bir məsələdir. Bu mövzunun aktuallığı, ölkənin ərazi birləşməsi və inkişafı üçün strateji bir yönü təşkil edir. İşğaldan azad edilmiş rayonların iqtisadi potensiali, bu bölgələrin strateji mərkəzlər kimi fəaliyyət göstərməsi və inkişaf perspektivləri üzrə təhlilə əsaslanır. Elmi yeniliyi, bu mövzunun geniş və ətraflı bir şəkildə tədqiq edilməsi və təhlil edilməsidir. Praktiki əhəmiyyəti isə bu rayonların iqtisadi və sosial infrastrukturunun təkmilləşdirilməsi və bu prosesin həyata keçirilməsi ilə əlaqəlidir. İşğaldan azad edilmiş rayonların inkişafı, ölkə iqtisadiyyatına daha çox dəyər yaratmağı, sosial və iqtisadi inkişafın sürətləndirilməsini təmin etməyi hədəfləyir. Bu perspektivlər, regionların iqtisadiyyatının canlanması, yeni iş sahələrinin yaradılması, tarixi və mədəni irsin bərpası, vətəndaşların yaşam keyfiyyətinin artırılması və ölkənin ümummilli birliyinin möhkəmlənməsi üçün müsbət nəticələrə gətirir. İşğaldan azad edilmiş rayonların iqtisadi potensiali, bu bölgələrin strategik əhəmiyyətə malik olması və inkişaf üçün geniş perspektivlərə malik olması fikrinə əsaslanır. Bu rayonların potensialının maksimal dərəcədə istifadə edilməsi, ölkənin sərhədlərinin bərpa edilməsi, iqtisadiyyatın müasir standartlara uyğunlaşdırılması və sosial infrastrukturun təkmilləşdirilməsi ilə əlaqəlidir. Həmçinin, bu rayonların iqtisadi inkişafı,

regionların müstəqil iqtisadiyyat sahibi olmasını, yeni iş və istehsal sahələrinin yaradılmasını, əhalinin məşğulluq imkanlarının artırılmasını və yaşayış səviyyəsinin yüksəldilməsini təmin edir. Bu baxımdan, işğaldan azad edilmiş rayonların iqtisadi potensialının və inkişaf perspektivlərinin geniş və ciddi bir təhlilinə ehtiyac var. Bu təhlil, ölkənin bütün sərhədlərinin bərpası və inkişafı üçün strateji yol xəritəsinin formalaşdırılması, iqtisadiyyatın diversifikasiyası, regionların iqtisadiyyatının canlanması, infrastrukturun modernizasiyası və beynəlxalq iqtisadi əməkdaşlığın inkişafı kimi vacib məsələləri əhatə etməlidir.

**AÇAR SÖZLƏR:** İŞĞAL, RAYON, İQTİSADİ, AZƏRBAYCAN, QARABAĞ BÖLGƏSİ, PERSPEKTİV.

## ECONOMIC POTENTIAL AND DEVELOPMENT PERSPECTIVES OF REGIONS LIBERATED FROM OCCUPATION

**ABSTRACT**

The economic potential and development prospects of the liberated regions are an important issue in the process of restoring the territorial integrity of azerbaijan. The relevance of this topic constitutes a strategic direction for the territorial unification and development of the country. The economic potential of the regions freed from occupation is based on the analysis of the functioning of these regions as strategic centers and development prospects. The scientific innovation is the extensive and detailed research and analysis of this topic. Its practical importance is related to the improvement of the economic and social infrastructure of these regions and the implementation of this process. The development of regions freed from occupation aims to create more value for the country's economy and to ensure the acceleration of social and economic development. These perspectives lead to positive results for the revitalization of the economy of the regions, the creation of new business areas, the restoration of the historical and cultural heritage, the improvement of the quality of life of the citizens, and the strengthening of the national unity of the country. The economic potential of the liberated regions is based on the idea that these regions are of strategic importance and have broad prospects for development. Maximizing the potential of these regions is related to restoring the country's borders, adapting the economy to modern standards, and improving social infrastructure. Also, the economic development of these regions ensures that the regions have an independent economy, the creation of new work and production areas, increasing the employment opportunities of the population and raising the standard of living. In this regard, there is a need for a broad and serious analysis of the economic potential and development prospects of the liberated regions. This analysis should cover important issues such as forming a strategic road map for the restoration and development of all borders of the country, diversification of the economy, revitalization of the economy of the regions, modernization of infrastructure and development of international economic cooperation.

**KEYWORDS:** OCCUPATION, REGION, ECONOMIC, AZERBAIJAN, KARABAKH REGION, PERSPECTIVE.

### GIRIŞ

İşğaldan azad edilmiş rayonların iqtisadi potensialı və inkişaf perspektivləri mövzusu, Azərbaycan Respublikasının tarixində və ictimai-siyasi həyatında əhəmiyyətli bir yer tutur. Bu rayonlar uzun müddət erməni dövləti tərəfindən işğal olunmuşdur və müharibənin qarşısının alınması ilə Azərbaycanın ərazi bütövlüyü bərpa olunmuşdur. İşğaldan azad edilmiş rayonlar, özəlliklə Dağlıq Qarabağ münaqişəsi ilə bağlı yaşanan müharibə dövründə strateji əhəmiyyətə malikdir. Bu rayonlar Azərbaycanın iqtisadi, sosial və mədəni sahələrdəki inkişafının mümkün və əhəmiyyətli bir hissəsini təşkil edir.İşğaldan azad edilmiş rayonlar, öz təbii resursları, kənd təsərrüfatı potensialı və turizm imkanları ilə diqqət çəkirlər. Bu rayonların iqtisadi potensialının cəmiyyətə təsiri, onların mədəni və tarixi mirası ilə də bağlıdır. Yenidən qurulmuş infrastruktur, təhsil və sağlamlıq xidmətləri ilə bu rayonlar, ictimai və iqtisadi fəaliyyətin inkişafında kritik rol oynaya bilər.

İşğaldan azad edilmiş rayonların inkişaf perspektivləri, müasir iqtisadiyyatın tələblərinə cavab verən, texnologiya və inovasiyaları cəlb edən, sahibkarlığı dəstəkləyən və ən əsası, ictimai mədəniyyəti bərpa edən layihə və tədbirlərə əsaslanır. Bu rayonlarda əhaliyə iş yaradılması, mədəni infrastrukturun inkişafı, turizm potensialının artırılması və kənd təsərrüfatı sektorunun modernizasiyası kimi sahələrdə qabaqcıl addımlar atılması mühüm rol oynayacaqdır.Bu mövzuda həyata keçirilən strategik planlar, iqtisadi inkişaf proqramları və sosial layihələr işğaldan azad edilmiş

rayonların potensialını maksimum dərəcədə artırmaq və ictimai yaşayış səviyyəsini yaxşılaşdırmaq üçün kritik önəmə malikdir.

**TƏDQIQAT METODU**

İşğaldan azad edilmiş rayonların iqtisadi potensialı və inkişaf perspektivləri mövzusunda tədqiqat apararkən aşağıdakı metodlardan istifadə edilə bilər:

1. Sahə araşdırmaları: İşğaldan azad edilmiş rayonlarda sahə araşdırmaları aparılaraq infrastrukturun və iqtisadi potensialın vəziyyəti təhlil edilir. Bu araşdırmalar iş sahələrinin, turizm məkanlarının, kənd təsərrüfatı sahələrinin və digər potensial sahələrin fiziki durumunu dəqiqləşdirir.
2. Anketlər və müşahidələr: Rayon sakinləri, iş adamları, təşkilatlar və digər əhali üzvləri ilə məşhurluq və sosial vəziyyət haqqında anketlər aparılaraq, onların fikirləri və ehtiyacatları araşdırılır. Həmçinin, ictimai tədbirlər və iqtisadi fəaliyyətlərin müşahidəsi vasitəsilə rayonların dinamikləri izlənilir.
3. Statistik məlumatların analizi: İqtisadiyyatın vəziyyəti, iş sahələrinin inkişafı, əhali səviyyəsi və mədəniyyət sahələrinin analizi üçün statistik məlumatlar əsasında təhlil aparılır. Bu məlumatlar rayonların mövcud vəziyyətini qiymətləndirməkdə köməkçi olur.
4. Fərdi mülkiyyət və ticarət məlumatlarının araşdırılması: İşğaldan azad edilmiş rayonlarda fərdi mülkiyyət və ticarət faaliyyəti ilə bağlı məlumatlar araşdırılaraq, sahibkarlıq potensialı və iş imkanları araşdırılır.
5. Siyasət və Stratejik planların təhlili: İşğaldan azad edilmiş rayonlar üzərində siyasət tətbiqi, inkişaf proqramları və layihələrin təhlili, dövlət və yerli qurumların strateji planlarının araşdırılması ilə rayonların inkişaf perspektivləri qiymətləndirilir.

İşğaldan azad edilmiş ərazilər, zəngin təbii sərvətlərlə: qızıl, mərmər, əqiq, mineral sular və s. kimi ehtiyatların potensialına malikdir. Bu ərazilərdə tikinti materialları kimi vacib olan çınqıl, kərpic, mişar daşı kimi xammallar mövcuddur.

İşğaldan əvvəlki illərdə fəaliyyət göstərmiş sənaye sahələri, ölkə iqtisadiyyatında əsas paya sahib olmuşdur. Ərazilərin işğal olunması, bir növ təbii ehtiyatların itirilməsi ilə nəticələnmişdir. Bu isə ölkə iqtisadiyyatına, azad edilmiş ərazilərə dəymiş olan cəmi zərərləri daha dəqiq hesablamaq üçün ilk olaraq təbii resursların növlərinə görə ayrı-ayrılıqda vurulmuş zərərləri müəyyən etmək lazımdır.

**Cədvəl 1: Müxtəlif təbii ehtiyatların növlərinə görə faydalı qazıntı yataqların istismarı nəticəsində yataqların xalis dəyəri və nəticədə yaranan itkilər**

| Sıra № | Təbii ehtiyatların növləri | Ehtiyat yataqlarının ümumi dəyəri Mln (manat) | Təbii ehtiyat yataqlarının xalis dəyəri Mln (manat) | Orta illik yaranan itkilər Mln (manat) | Cəmi itkilər Mln (manat) |
|---|---|---|---|---|---|
| 1. | Filiz mənşəli faydalı qazıntılar | 10495.9 | 9991.6 | 286.5 | 7162.6 |
| 2. | Qeyri-filiz mənşəli faydalı qazıntılar | 8041.3 | 5591.2 | 192.7 | 4818.1 |
| 3. | Əlvan və bəzək daşları | 303.5 | 5591.2 | 7.03 | 175.8 |
| 4. | Tikinti materialları | 64128.4 | 55342.8 | 1581.2 | 39530.6 |
| 5. | Yeraltı - şirin və mineral sular | 22183.8 | 110889.2 | 1008.4 | 25208.9 |
| Cəmi : | 76896 mln manat | | | | |

**Mənbə:** Rasimzadə E.Ə., 2018: s.36

Ötən əsrin 50-90-cı illər aralığında faydalı qazıntı yataqlarında aparılan axtarış, qiymətləndirmə və kəşfiyyat işlərinə cəmi 5110.8 mln manat xərc çəkilmişdir. Beləliklə, faydalı qazıntı yataqlarına vurulan ümumi zərər 82006.8 mln manat olmuşdur.

Ordumuzun tərəfindən geri alınan ərazilər Azərbaycan iqtisadiyyatında özünəməxsus bir yerə malikdir, əsasən böyük kənd təsərrüfatı sahəsi olaraq tanınır. Bu bölgələrdə bitkiçilik və heyvandarlıq kimi kənd təsərrüfatı sahələri üçün müsait torpaq və iqlim şəraiti mövcuddur.

Geri alınan ərazilər meyvə-tərəvəz, bitkiçilik və heyvandarlıq sahəsinin, bununla birlikdə qida və emal sənayesinin inkişafı üçün böyük potensiala sahibdir. Bu ərazilərdə Azərbaycanın öz əzəli torpaqlarında yetişdirilən 30 növdə bitki qidası və qida məhsullarının ixracı ilə bağlı 85 ölkəyə məhsul göndərilməkdədir.

Erməni işğalçılarının Azərbaycanın ərazilərini işğal etməsi və yerli əhalini köçürməsi nəticəsində, Sovet dövründə bu ərazilərdə yaşayan erməni əhalisinə dövlətimiz tərəfindən göstərilən dəstək sayəsində inkişaf etmişdirlər. 1980-ci illərdə bu regionda əsas bitkiçilik məhsullarının istehsalına diqqət yetirilmiş və bu dönəmdə taxıl istehsalı 13.9%, üzüm istehsalı isə 25.5%-ə çatmışdır.

**Cədvəl 2: Bitkiçilik məhsullarının istehsalı, min ton (işğaldan əvvəlki dövr üçün)**

| | Taxıl isthsalı | Pambıq Istehsalı | Tütün Istehsalı | Kartof istehsalı | Tərəvəz istehsalı | Bostan məhsulları istehsalı | Meyvə və giləmeyvə istehsalı | Üzüm istehsalı |
|---|---|---|---|---|---|---|---|---|
| DQMV | 100.1 | - | 0.3 | 2.77 | 6.6 | 0.3 | 1.1 | 71.8 |
| Ağdam rayonu | 30.1 | 19.3 | - | 0.01 | 1.4 | 0.9 | 0.48 | 86.1 |
| Cəbrayıl rayonu | 20.1 | - | - | 0.01 | 0.5 | 0.3 | 0.03 | 42.0 |
| Füzuli Rayonnu | 31.9 | 1.5 | - | - | 0.6 | 0.5 | 0.05 | 100.8 |
| Kəlbəcər rayonu | - | - | 0.9 | - | - | | - | - |
| Qubadlı rayonu | 6.7 | - | 2.1 | 0.06 | 0.01 | 0.1 | 0.01 | 2.9 |
| Laçın rayonu | 3.0 | - | 0.1 | 0.05 | 0.4 | 0.02 | 0.02 | 0.0 |
| Zəngilan rayonu | 4.6 | - | 1.3 | 0.06 | 0.1 | 0.05 | 0.04 | 16.3 |
| Cəmi istehsal həcmi | 196.5 | 20.8 | 4.7 | 2.96 | 9.61 | 2.18 | 1.73 | 319.9 |
| Ölkə üzrə cəmi istehsal həcminə nisbət, % | 13.9 | 3.4 | 8.1 | 1.8 | 1.1 | 3.4 | 0.4 | 25.5 |

**Mənbə:** Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir https://www.stat.gov.az/ (1980)

İşğal altında olan dövrlərdə azad edilmiş ərazilər üçün səmərəsiz olsa da, işğaldan əvvəlki illərdə ölkəmizdə kənd təsərrüfatı məhsullarının istehsalı 35-40%-lik səviyyədə idi. Məsələn, Qarabağ regionu 250 min hektardan çox əkin üçün uyğun torpaq sahələrinə malikdir, ancaq bu sahələrin yalnız 7 faizi işlədilib.

**NƏTICƏ**

İşğaldan azad edilmiş rayonların iqtisadi potensiali və inkişaf perspektivləri mövzusunda əldə olunan nəticələr dövlətimizin bu bölgələrdə mövcud olan sərvətlərin, torpaq resurslarının və infrastrukturun inkişaf etdirilməsi ilə geniş mümkünətlərə malik olduğunu göstərir. Bu rayonların azad edilməsi, ölkəmizin ərazi bütövlüyünün bərpa edilməsi və regional inkişafın təmin edilməsi üçün əhəmiyyətli bir addımdır. İşğaldan azad edilmiş rayonlarda ciddi potensial yatırım imkanları, turizm sahəsində genişləmə perspektivləri, kənd təsərrüfatının inkişafı üçün əlverişli şərait mövcuddur. Bu bölgələrin iqtisadi canlanması, sürətli inkişafı və sosial səviyyələrin yüksək olması, ölkə iqtisadiyyatının ümumi inkişafına da təsir edəcək və milli ekonominin stabilliyinin təmin edilməsinə yardım edəcəkdir. Nəhayət, bu rayonların iqtisadi potensialının dəyərləndirilməsi və inkişaf perspektivlərinin analizi, strateji planların hazırlanması və qeyri-adi investisiyaların cəlb edilməsi üçün əsaslı bir əsas yaradır. Bu yolla, işğaldan azad edilmiş rayonların iqtisadi potensialı və inkişaf perspektivləri mövzusunda gəlinən nəticələr, ölkəmizin bütün bölgələrinin sürətli və ciddi inkişafı üçün strateji yönünün müəyyənləşdirilməsində əhəmiyyətli bir rol oynayır. İşğaldan azad edilmiş rayonların iqtisadi potensiali və inkişaf perspektivləri mövzusunda, öncəliklə bu bölgələrin

potensialının detallı bir təhlilinin təşkil edilməsi önəmlidir. Bu təhlil zamanı müxtəlif sahələrdə, məsələn, kənd təsərrüfatı, sənaye, turizm və infrastruktur sahələrindəki imkanlar və ehtiyaclar qiymətləndirilməlidir. Daha sonra, bu bölgələrin iqtisadi inkişafını dəstəkləmək üçün konkret layihələr və proqramlar hazırlanmalıdır. Bu layihələr, iqtisadi potensialın aktivləşdirilməsi, sürətli inkişafın təmin edilməsi, vətəndaşların səfərbərliyinin artırılması, iş yaradılması, infrastrukturun təkmilləşdirilməsi və sosial sahələrdə yeniliklərin gətirilməsi məqsədilə inkişaf etdirilməlidir. Həmçinin, bu bölgələrdəki iqtisadi fəaliyyətin inkişafını dəstəkləmək üçün təşkilatlar arasında əməkdaşlığın gücləndirilməsi və müxtəlif sektorlarda investisiyaların cəlb edilməsi üçün tədbirlər planlaşdırılmalıdır. Bu yolla, işğaldan azad edilmiş rayonların iqtisadi potensiali və inkişaf perspektivləri daha effektiv şəkildə dəyərləndirilərək, mövcud imkanlar daha optimal şəkildə istifadə edilə bilər və bu bölgələrin inkişafı daha sürətli və effektiv olar.

**ƏDƏBIYYAT SIYAHISI**

1. Abbasova T.C., Gözəlova S.M., "İnnovasiyayönümlü iqtisadiyyatın inkişafı və İKT-dən səmərəli istifadə edilməsi yolları". "Qlobal iqtisadi çağırışlar: Azərbaycanın işğaldan azad olunmuş ərazilərində sosial-iqtisadi inkişafın əsas istiqamətləri" mövzusunda beynəlxalq elmi-praktiki konfransın materialları, 2021, Bakı, s.101-104.

2. Allahverdiyeva A.U., "İşğaldan azad olunmuş ərazilərdə sahibkarlığın inkişafı istiqamətləri". "Qlobal iqtisadi çağırışlar: Azərbaycanın işğaldan azad olunmuş ərazilərində sosial-iqtisadi inkişafın əsas istiqamətləri" mövzusunda beynəlxalq elmi- praktiki konfransın materialları, 2021, Bakı, səh.143-146.

3.Bağırov O. (2020), Azad edilmiş ərazilərdə bərpa prosesinin əsas istiqamətləri. AirCenter, 9 səh.

4. Baxşəliyev R. "Zəfərin yaratdığı iqtisadi yüksəliş: İlham Əliyevin yeni inkişaf strategiyası Azərbaycanın postmüharibə dövrü üçün mühüm yol xəritəsidir". Azərbaycan qəzeti, Bakı, 23 noyabr, 2021. No253, səh.1-3.

5. Cəfərova E., Hüseynov V., Bağırov O., Hacıyev Ş., Əsgərova R., (2021), 44 günlük Qarabağ müharibəsi: mülahizə və nəticələr, Bakı, BMTM, 28 səh.

6. Əkbərov M., "Azad olunmuş rayonlarda kommersiya fəaliyyətinin bərpası yolları", UNEC ekspert, 2021, No1(10), səh.19-21.

7. Əliyeva T.Ə., "Azərbaycanin işğaldan azad edilmiş ərazilərində investisiya qoyuluşlarinin təhlili", Geostrategiya, 2022, No 01 (67), səh162-167.

# RISKLƏR VƏ QEYRI-MÜƏYYƏNLIK

**MÜŞFIQ SƏFƏROV**
Bakı Mühəndislik Universiteti
İqtisadiyyat və İdarəetmə
*Mseferov4@std.beu.dedu.az*
XIRDALAN AZƏRBAYCAN

**XÜLASƏ**

Risk iqtisadiyyatın ən fundamental məsələlərindən biri kimi xüsusi əhəmiyyət kəsb edir. Bu məqalədə riskin mənası, iqtisadiyyatda rolu və kökləri haqqında qısa təhlil verilir. Risk anlayışı ilk dəfə iqtisadiyyata 18-ci əsrin ortalarında daxil olmuşdur. İngilis iqtisadçısı daniel bernoulli "risk, istehlak və əsl əxlaq" adlı əsəri ilə risk məsələsini dəqiq təhlil edən ilk alim olmuşdur. Bernoulli, insanların risklə qarşılaşdıqları zaman nəticələrinin təkcə maddi cəhətdən asılı olmadığını və bunun müasir iqtisadiyyatda risk anlayışının əsaslarından biri olduğunu qeyd etdi.

Riskin mənbələri və onunla bağlı problemlər tarixin və iqtisadiyyatın inkişafı ilə paralel olaraq dəyişmişdir. Həmçinin, risklərin qiymətləndirilməsi, idarə edilməsi və məruz qalmaya yönəlmiş tədqiqat və təcrübələr bu dəyişikliklərə uyğun olaraq inkişaf etmişdir.

Bu məqalə riskin müxtəlif formaları - maliyyə, sənaye, mədəni və onun təsir etdiyi digər sahələrlə bağlı suallara cavab axtarır. Bunlara şəxsi maliyyə riski, biznes riski, siyasi risk və ya təbii fəlakət riski daxil ola bilər. İqtisadiyyatda riskin keyfiyyəti və miqyası müxtəlif fəaliyyət sahələrində fərqli nəzəriyyələr və təcrübələr tələb edir. Məqalədə praktik nümunələr və illüstrasiyalar, Azərbaycan şəraitində müəssisələrin üzləşə biləcəyi konkret riskləri və onlara cavab üçün mövcud strategiyaları təqdim edir. Təhlil, müxtəlif metodlardan istifadə edərək müəssisələrin risklərə cavab verərkən necə qarşıdurma strategiyaları inkişaf etdirdiklərini və praktik təcrübələrini əhatə edir

Nəhayət, məqalədə iqtisadiyyatın müxtəlif təcrübələrində riskin dəyəri və onun cəmiyyətə təsiri aydın şəkildə izah edilir. Məlum olub ki, iqtisadiyyatın keyfiyyətini və inkişaf tempini müəyyən edən bir çox məsələlərdə risk əsas amildir.

**AÇAR SÖZLƏR**

Risk Menecmenti,Riskin mahiyyəti,Qeyri-müəyyənlik,İqtisadiyyat,Təhlil

**SUMMARY**

Risk holds particular significance as one of the most fundamental issues in economics. This article provides a brief analysis of the meaning, role, and origins of risk in the economy. The concept of risk first entered economics in the mid-18th century. The English economist Daniel Bernoulli was the first scholar to provide a detailed analysis of the issue of risk with his work "Risk, Uncertainty, and Expected Utility." Bernoulli noted that the consequences individuals face when dealing with risks are not solely dependent on material aspects and emphasized that this is one of the foundations of modern economic risk perception.

The sources of risk and related issues have changed parallel to the development of history and economics. Moreover, research and experiments aimed at evaluating, managing, and exposure to risks have evolved in accordance with these changes.

This article explores various forms of risk - financial, industrial, cultural, and others - and seeks to answer questions related to their impact. These may include personal financial risk, business risk, political risk, or natural disaster risk. The nature and scale of risk in the economy require different theories and experiences in various fields of activity. The article presents practical examples and illustrations, offering existing strategies for addressing specific risks that institutions in Azerbaijan may face. The analysis covers how institutions develop coping strategies in response to risks using various methods and encompasses practical experiences.

Finally, the article explains the value of risk in various economic experiences and its impact on society. It is well known that risk is a key factor in determining the quality and pace of economic development in many issues.

**KEY WORDS**

Risk Management, Nature of Risk, Uncertainty, Economics, Analysis

## GIRIŞ

Bu məqalə, müəssisələrin maruz qaldığı risklərin əhəmiyyətini və qarşılaşdıqları qeyri-müəyyənlikləri təhlil edir. Müəssisələr üçün risklər, fəaliyyətlərini və nailiyyətlərini təhlükəyə atmağa səbəb ola bilən hər hansı bir hadisə, qərar və ya faktordur. Bu risklər geniş bir spektruma yayılabilir və müəssisənin fəaliyyət sahəsinə vəziyyətə bağlı olaraq dəyişə bilər.

Məqalədə qeyri-müəyyənliklər də təhlil olunur, ki bunlar planlamadığımız və nəzarət etməyə gücümüzün yetmədiyi hadisələr və faktorlardır. Bu, siyasi, iqtisadi, təbiət fəlakətləri, epidemiyalar və digər təxmin edilməz vəziyyətlərlə bağlı ola bilər. Bu qeyri-müəyyənliklər müəssisələrin fəaliyyətini, ticarət şəraitlərini və operativ fəaliyyətlərini dəyişdirə vəziyyətə qoymağı tələb edir.

Məqalədə müxtəlif risk növləri, məsələn, kredit, bazar, likvidlik, siyasi, hüquqi, kriminal, maliyyə, vergi, investisiya, inflyasiya, faiz və valyuta riskləri müzakirə olunur. Həmçinin müxtəlif təhlükəsizlik faktorları, məsələn, fiziki, təbii, kibertəhlükələr və hərbi təhlükələr də təhlil olunur.

Risk idarəsi və qarşıdurma strategiyalarının əhəmiyyəti də vurğulanır. Bu strategiyalar, müəssisələrin riskləri minimalizə etməsi, nəzarət altında saxlamaq və dəyişən mühitlərə uyğunlaşmaq üçün vacibdir.

Məqalədə Azərbaycanda müəssisələrin üzləşdiyi digər risklər və onların həll yolları da nümunələrlə əhatə olunmuşdur. İqtisadiyyatın dəyişkən olması, siyasi stabilitet, texnoloji inkişaflar, ticarət münasibətləri və kölgə iqtisadiyyatı kimi məsələlərə diqqət çəkilir.

Nəticə olaraq, məqalə risklərin və qeyri-müəyyənliklərin müəssisələr üzərindəki təsirini və idarə edilməsi üçün əhəmiyyətli məqamları və qarşıdurma strategiyalarını təhlil edir. Bu məqalə, müəssisə rəhbərlərinə və iş təşkilatlarına risk idarəetmə və qarşıdurma planlarını təkmilləşdirmək üçün faydalı məlumatlar təmin edir.

Məqalə 3 hissədən ibarətdir:

- Müəssisələrin məruz qaldığı risk və qeyri-müəyyənlik anlayışı
- Müəssisənin qarşılaşa biləcəyi əsas risk növləri
- Müəssisələrin risklərə və qeyri-müəyyənliklərə qarşı görə biləcəyi tədbirlər.

**TƏDQIQAT METODU**

Müəssisələr üçün risk, həmin müəssisənin hədəflərinə nail olmaq üçün girişilən hər hansı bir fəaliyyətin, qərarın və ya hadisənin nəticələrinin istənilməyən vəziyyətlərə səbəb olmaq ehtimalıdır. Müəssisələr üçün bu risklər geniş bir spektruma yayıla bilər və maliyyə, işgüzar, əmək haqqı, texnologiya, siyasət, təhlükəsizlik və s. kimi sahələri əhatə edə bilər.Həmçinin riskin zərərli tərəfi olduğu kimi onun mənfəət gətirici yanı da var. Belə ki, nə qədər çox gəlir, o qədər çox mənfəət. Bunu bir sıra iqtisadçılar da təsdiq etmişdir. Məsələn, R.Dembo və A.Frimen qeyd edirlər ki, risk investisiya portfelinin dəyərində bugünki vəziyyətlə müqayisədə gələcəkdə baş verə biləcək dəyişikliyin ölçüsüdür. Bundan əlavə bu anlayışa durum komponentlərini də qataraq, Uilliams, Keyns risk terminini məlum zaman enində məlum durumda ehtimalı yüksək olan nəticələrin dəyişməsi kimi təyin etmişlər.

Məsələn, Adam Smith "Xalqların sərvəti" əsərində qeyd edir ki, "İnsanlar arasında mövcud olan hər hansı bir sənayenin və ya peşənin çoxsaylı sahələrində birinin digərindən daha çox gəlir əldə etməsinin səbəbi digərindən daha çox risk götürməyi tələb etməsidir". Bu səbəbdən o hesab edirdi ki, sahibkarların riskə getmə meylləri azad bazar iqtisadiyyatının dinamikasına və iqtisadi artıma töhfə verir".

**Qeyri-müəyyənliklərin müəssisələr üzərindəki təsiri**

Qeyri-müəyyənliklər, müəssisələrin planlamadığı və nəzarət etməkdə mümkün olmayan hadisələr və faktorlar deməkdir. Bu təhlükələr vəziyyəti dəyişdirə biləcək qərarlar, tədqiqatlar, siyasi fəaliyyətlər, epidemiyalar,müharibələr,təbiət fəlakətləri, iqtisadi inkişaflar və s. kimi təxmin edilməz və ya müdaxilə edilməsi çətin olaylarla bağlıdır.Məsələn, 2019 cu ildən başlayan və dünyanı çevrələyən karonavirus epidemiyası zamanı iqtisadiyyat dayanma nöqtəsinə yaxınlaşmış, birçox kiçik və orta sahibkarlıq obyektləri qapanmış və daha dəhşətlisi xarici idxaldan asılıı olan dövlətlər üçün böyük problemlərr başlamış, tsəhiyyə sistemi yüklənmişdir. Bir sözlə bu kimi, halların baş verməsi beynəlxalq aləmdə qeyri-müəyyənliklərin yaranmasına səbəb olmuşdur.Belə bir halda da investisiyalar, işgüzar əməkdaşlıqlar dayanmışdır. Bu da daha qapanmamış olan müıssissələr üçün qeyri-müəyyənlik yaratdı.

Eynilə Rusiya-Ukrayna silahlı münaqişələrinin yaranması həm region həm də kənar dövlətlər üçün ticarət yollarının bağlanılması, ən yaxşı halda isə bu yolların böyük xərcə baxmayaraq dəyişdirilməsinə səbəb oldu. Bu gözlənilməz riskin baş verməsi, qida sənayesində Rusiyadan xammal və hazır məhsul idxal edən, ölkəmiz üçün də təsirsiz ötüşmədi.

Hələ də davam edən bu qarşı durma gələcək barədə böyük suallar doğurmaqda davam edir ki, bu da qeyri-müıyyınliklərin yaranmasına və bu halın davaam etməsinə səbəb olur.

Bunun kimi ölkəmizdə 2015 ci ildə yaşanan Manatın devalvasiyası da ölkədə qeyri-müəyyən iqtisadi şərait yaratdı və özü ilə birgə bir çox risk də gətirdi. Məsələn anidən yüksəlişdə olan Dolların daha da yüksəlma riski, Manata olan və azalan etibara görə dollara yatırım edən sahiblkarlar üçün bir risk də var idi bu da dolların yenidən ucuzlaşması.

**Müəssisələrin Qarşılaşa Biləcəyi Əsas Risklər**

Riskin əsas bu növləri ilə qarşılaşırlar:

**Kredit riski:** Debitorların ödəmə qabiliyyətini itirməsi

**Bazar risiki:** Bazar payının azalması, udulma

**Likvidlik riski:** Müəssisənin əlində olan aktivlərin likvidliyinin azalması

**Siyasi risk:** Ölkədəki siyasi sabitlik və siyasi rəhbərliklə münasibətin pozulması

**Hüquqi risk:** Ölkə qanunvericiliyinin fəaliyyət göstərilən sahəyə münasibətinin kəskinləşməsi, birmənalı olmaması

**Kriminal:** Ölkədə cinayət səviyyəsinin artması

**Maliyyə:** Maliyyə resurslarının dəyərdən düşməsi

**Vergi riski:** Fəaliyyət göstərilən sahəyə vergi dərəcələrinin artırılması

**İnvestisiya riski:** investisiya edilmiş sahələrin iflasa uğraması, inkişafdan geri qalması

**Inflyasiya riski:** İnflyasiya dərəcəsinin yüksəlməsi

**Faiz riski:** Kreditorlara qarşı olan öhdəliklərin faiz dərəcələrinin atması

**Valyuta riski:** Xarici ticarət əlaqələri saxlanılan ölkələrin valyutasına qarşı milli valyutanın dəyərdən düşməsi. Məsələn, Türkiyə hazırda bunu yaşayır

**Depozit riski:** Qoyulan depozitlərin dondurulması və ya əmanət edilən müəssisənin iflas etməsi.

**Qeyri-Müəyyənliklər və Təhlükəsizlik Faktorları**

**Siyasi Qeyri-Müəyyənliklər:**

1. **Siyasi mərhələlər və qərarların müəssisələrə təsiri**: Siyasi mərhələlər və qərarlar müəssisələr üzərində geniş təsirə malik olabilir. Siyasi instabilitət, dəyişən siyasi siyasətlər, qanunvericilik və s. müəssisələrin fəaliyyətlərini, maliyyələrini və iş proseslərini dəyişdirə bilər. Bu, müəssisələrin ticarət şəraitlərinə uyğunlaşmaq və strateji tənzimləmələri dəyişdirmək məcburiyyətində qalmasına səbəb ola bilər.

2. **Məhdudlaşdırılmış iqtisadiyyat və sanksiyaların təsiri:** Məhdudlaşdırılmış iqtisadiyyat və sanksiyalar, müəssisələrin işləməsinə ciddi dərəcədə təsir edə bilər. Məhdudlaşdırılmış iqtisadi siyasətlər, ticarət sanksiyaları və digər məhdudiyyətlər müəssisələrin iqtisadiyyat və ticarət fəaliyyətlərini məhdudlaşdıra vəziyyətə gətirə bilər.

Təhlükəsizlik faktorları, müəssisənin qarşılaşa biləcəyi maddi və mənəvi risklərə səbəb ola bilən bir sıra amillərdən ibarətdir. Bu faktorlar müxtəlif sahələrdən gələ bilər və müəssisənin operativ fəaliyyətlərini, məhsul keyfiyyətini, əməkdaşlarının təhlükəsizliyini və mənfi reputasiya effektini təsir edə bilərlər.

**Təhlükəsizlik faktorlarına nümunələr:**

- **Fiziki təhlükələr** : Məsələn müəssisənin soyulması
- **Təbii fəlakətlər:** Sel, daşqın, zəlzələ və s Həmçinin epidemiya
- **Kibertəhlükələr :** Kiber hücumların baş verməsi
- **Hərbi təhlükə :** Fəaliyyət göstərilən ölkənini hərbi əməliyyatlarda iştirakı
- **İnsan səhvi:** İnsan səhlənkarlığı və ya ehtiyyatsızlığı ucbatından bədbəxt hadisələrin baş verməsi

**Risk İdarəsi və Qarşıdurma Strategiyaları**

Bu proses adətən 3 mərhələdə həyata keçirilir

- Risklərin qiymətləndirilməsi və idarə edilməsi
- Qarşıdurma strategiyaları və nəzarət tədbirləri
- Flexible və Adaptuive reaksiya planları

**Risklərin qiymətləndirilməsi və idarə edilməsi**

Bu mərhələdə, müəssisə risklərinin tanınması, qiymətləndirilməsi, prioritetləndirilməsi və nəzarət altına alınması üçün əhəmiyyətli risk idarəetmə prosesi baş verir. Bu proses aşağıdakı addımları izləyir:

1. Risklərin Tanınması: Müəyyən müəssisənin üz-üzə qaldığı risklərin dəqiq şəkildə tanınması və identifikasiyası həyata keçirilir.

2. Risklərin Qiymətləndirilməsi: Hər bir riskin potensial təsirlərini, ehtimallarını və prioritet səviyyəsini qiymətləndirmək lazımdır.

3. Risklərin Nəzarətə Alınması: Nəzarət tədbirləri və ya məhdudiyyət strategiyaları təyin edilməlidir. Bu, risklərin effektlərinin minimalizə edilməsinə və ya qarşıdurulmaya kömək edəcək addımları ehtiva edir.

**Qarşıdurma Strategiyaları və Nəzarət Tədbirləri**

Bu mərhələdə, müəssisə risklərinə cavab olaraq konkret strategiyalar və tədbirlər tətbiq edir. Bunlar aşağıdakıları əhatə edir:

1. **Risklərə Qarşı Qarşıdurma Planlarının tərtibi**: Hər risk üçün özəl olaraq hazırlanmış qarşıdurma planları və tədbirlər təyin edilməlidir.

2. **Nəzarət Tədbirlərinin Tətbiqi**: Risklərin nəzarətə alınması üçün müxtəlif tədbirlər, protokollar və prosedurların tətbiq edilməsi vacibdir.

3. **Əlaqəli Təcrübə və İnzibati Dəstəkləmə**: Qarşıdurma strategiyalarının və nəzarət tədbirlərinin tətbiqi üçün əlaqəli personelin təlimi və dəstəyi vacibdir.

**Flexible və Adaptive Reaksiya Planları**

Bu mərhələdə, müəssisələr flexibel və adaptiv reaksiya planları hazırlayaraq dəyişən vəziyyətlərə uyğunlaşmaq və müdaxilə etmək üçün hazırlıqlı olur. Bu planlar aşağıdakıları daxil edir:

1. **Təhlükəli Hallara Cavab Planları**: İlkin olaraq təhlükəli hallara cavab verməkk üçün hazırlanmış planlar və prosedurlar.

2. **İdarəetmədə Dəyişikliklər**: Gələcək təhlükəli vəziyyətlərə cavab olaraq planların və prosedurların dəyişdirilməsi və təkmilləşdirilməsi.

Bu addımlar, müəssisənin risklərə qarşı müdafiəli olmasını və dəyişən mühitlərə uyğunlaşmaq üçün hazırlıqda olmasını təmin edir.

**Azərbaycanda Müəssisələrin qarşılaşdığı digər risklər və həll yolları**

Azərbaycanda fəaliyyət göstərən müəssisələr fərqli sahələrdə fəaliyyət göstərir və müxtəlif risklərlə üz-üzə qalır. İşin növünə və ölçüsünə görə bu risklər dəyişir, amma bəziləri ümumilikdə geniş bir spektrdə yer alır. İşdə bazı əsas risklər və həll yolları haqqında nümunələrə baxaq**:**

**1. İqtisadiyyatın Dəyişkənliliyi:**

**Risk:** İqtisadiyyatın dəyişkən olması, valyuta dəyərlərinin dalğalanması və s.

**Həll:** Mənfəət yatacaq müstəqil iqtisadiyyat qurmaq, xarici valyutaya və müxtəlif sənayelərə investisiyalar təşkil etmək.

**2. Siyasi Stabilitet Və Siyasət Mərhələləri:**

**Risk:** Siyasi mərhələlər və siyasi qərarların müəssisələr üzərində müxtəlif təsirləri.

**Həll:** Siyasi riskləri qiymətləndirmək, siyasi əlaqələri qorumaq və fəal dövlət ilişkiləri inkişaf etdirmək.

**3. Texnoloji İnkişaflar Və Kibertəhlükələr:**

**Risk:** Texnoloji infrastrukturun məhdudlaşdırılması, kibertəhdidlər və s.

**Həll:** Kibertəhlükələrə qarşı müdafiəli tədbirləri (məsələn, firewall, antivirus proqramları), texnologiya inkişaflarını izləyərək təcrübəyə uyğunlaşmaq**.**

**4. Ticarət Münasibətləri Və Təşkilatlararası Qarşılıqlı Təsir:**

**Risk:** Ticarət sanksiyaları, müxtəlif sənədlərdən qaynaqlanmış risklər və s.

**Həll:** Qanunvericiliklə əlaqələri izləmək, müştərilərlə daim əlaqədə olmaq və müəssisələr arasında açıq və dəstəklayıcı əlaqələr qurmaq.

**5. Kölgə iqtisadiyyatı**

**Risk:** Ölkədə vergidən yayınma hallarının artması

**Həll:** Vergi qanunvericiliyinin yığcamlaşdırılması, beynəlxalq təcrübəyə inteqrasiya

**Nəticə**

***Risk*** – mənfəət ya da ki, zərər verən fəaliyyətdir

**Müəssisələrin Qarşılaşdığı Risklərin və Qeyri-Müəyyənliklərin Nəzərdən Keçirilməsi:** Bu mərhələdə, müəssisələrin fəaliyyətlərində üzləşə biləcəkləri risklər və qeyri-müəyyənliklər təhlil edilir. Bu təhlil prosesi aşağıdakıları əhatə edir:

1. **Risklərin Təyin Edilməsi**: Müəssisələr üçün müxtəlif sahələrdə mövcud olan risklər, qiymətləndirilir və təyin edilir.

2. **Risklərin Dəyərləndirilməsi**: Hər bir riskin potensial təsirləri və ehtimalları qiymətləndirilir.

3. **Qeyri-Müəyyənliklərin İdare Edilməsi**: Müəssisələr üçün müxtəlif qeyri-müəyyənliklər vəziyyətlərinin idarə olunması üzrə strategiya və taktikalar tətbiq edilir.

Bu mərhələdə müəssisələr risklərinin və qeyri-müəyyənliklərinin həqiqi potensialını anlamaq və bu məsələlərin idarə olunması üçün uyğun strategiyaları hazırlamaq üçün tənzimləmələri edirlər.

**Qarşıdurma Strategiyalarının Əhəmiyyəti və Önəmi:** Bu mərhələdə, qarşıdurma strategiyalarının təsiri və əhəmiyyəti müzakirə olunur:

1. **Risklərin Minimallaşdırılması**: Qarşıdurma strategiyaları, müəssisələrin üzləşəcəyi risklərin təsirini azaltmaq və hətta sıfıra endirmək üçün əhəmiyyətlidir.

2. **İdarəetmədə Dəyişikliklər**: Müəssisələr üçün daxili prosedurların, proseslərin və tədbirlərin dəyişdirilməsi üçün yol göstərən strategiyalar təklif edir.

3. **Qarşılıqlı Təsir**: Qarşıdurma strategiyaları, müəssisənin müştəriləri, tərəfdaşları və əməkdaşları ilə qarşılıqlı təsir və əlaqələrə də diqqət yetirir.

**ƏDƏBİYYAT SSİYAHISI**

1. Agrawal, v. And s. Seshadri (2000), "risk intermediation in supply chains," iie transactions 32, 819-831
2. Smeltzer, l. R. And s. P. Siferd (1998), "proactive supply management: the management of risk," international journal of purchasing and materials management, winter, 38-45.
3. Zhang, d. And a. Nagurney (1996), "stability analysis of an adjustment process for oligopolistic market equilibrium modeled as a projected dynamical system," optimization 36, 263-285.
4. Markowitz, h. M. (1952), "portfolio selection," the journal of finance 7, 77-91
5. Nagurney, a., j. Dong and d. Zhang (2002), "a supply chain network equilibrium model," transportation research e 38, 281-303.

# KOMMUNİKASİYA İQTİSADİYYATDA MÜHÜM İSTEHSAL FAKTORU KİMİ

**ZƏMİNƏ NOVRUZOVA**

Azərbaycan Texnologiya Universiteti
İqtisadiyyat və idarəetmə fakültəsi, İctimai elmlər və multikulturalizm kafedrası
*zeminenovruzova@mail.ru*
Gəncə, Azərbaycan

**XÜLASƏ**

Müasir dövrdə qloballaşma ilə ünsiyyət üslubları da dəyişmişdir. Ünsiyyətin hər bir dövrdə biznesin vacib bir hissəsi olduğu hamıya məlumdur. Xüsusilə qloballaşma dövründə şirkətlərə öz müştəriləri ilə ünsiyyət qurmaq üçün yeni imkanlar açılmışdır. Bununla yanaşı qlobal iqtisadiyyatda beynəlxalq kommunikasiyalar daha kritik xarakter alıb və müxtəlif mənşəli insanların bir-biri ilə və öz mədəniyyətləri ilə ünsiyyət qurmasını zəruri edib. Çünki, müəssisələr harada yerləşmələrindən asılı olmayaraq müştərilərə çata bilməlidirlər. Ancaq, burada bəzi nüanslar ortaya çıxır ki, bu da mədəniyyətlər, dillər, terminologiya, biznes təcrübələri və digər amillər arasında ünsiyyətlə bağlı problemlərin mövcud olması ilə əlaqədardır. Müxtəlif təşkilatlar, müəssisələr öncə zaman fərqliliyi, mədəni müxtəliflik və dil maneələri ilə bağlı problemləri həll etməlidir. Məlum olduğu kimi, qloballaşma bütün dünyada köklü dəyişikliklərə səbəb olur və bu dəyişmələr nəticəsində bütün dünyada rabitə və informatika sahələrində o qədər sürətli inkişaf prosesi yaranır ki, bəzən bu cür dəyişiklik və inkişafla ayaqlaşmaq, onu təqib etmək çətinləşir, həyəcan verir və bir qədər də fantastik görünür. Elə buna görə də, qeyd etməliyik ki, dəyişən dünyada faydalı və effektiv qərarlar qəbul etmək üçün bu qurumlar arasında qırılmaz, davamlı və effektiv qarşılıqlı əlaqə yaratmaq zəruridir. Davamlı və effektli fəaliyyəti təmin etmək üçün qurumların öz sektorlarında kifayət qədər məlumata malik olmaları, nəinki ilbəil, hətta günbəgün, saatbasaat baş verən dəyişikliyi təqib edə bilmələri üçün qarşılıqlı əlaqə şəbəkəsi yaradılmalı və diqqətdə saxlanılmalıdır.

**AÇAR SÖZLƏR: KOMMUNİKASİYA, İQTİSADİYYAT, İNTEQRASIYA**

**SUMMARY**

Communication styles have also changed with globalization in modern times. It is well known that communication is an important part of business in every era. Especially in the era of globalization, new opportunities have been opened for companies to communicate with their customers. At the same time, international communications have become more critical in the global economy, making it necessary for people of different backgrounds to communicate with each other and with their cultures. Because businesses should be able to reach customers regardless of where they are located. However, some nuances arise here, which are related to the existence of communication problems between cultures, languages, terminology, business practices and other factors. Various organizations and enterprises must first solve the problems related to time difference, cultural diversity and language barriers. As it is known, globalization causes radical changes all over the world, and as a result of these changes, there is such a rapid development process in the fields of communication and informatics all over the world that sometimes it is difficult to keep up with such changes and developments, to follow them, it is exciting and it seems a bit fantastic. Therefore, we must note that in order to make useful and effective decisions in the changing world, it is necessary to create an unbreakable, continuous and effective interaction between these institutions. In order to ensure continuous and effective activity, a network of interaction should be created and maintained so that the institutions have sufficient information in their sectors and can follow the changes that occur not only from year to year, but even from day to day.

KEYWORDS: COMMUNICATION, ECONOMY, INTEGRATION

**GIRIŞ**

Məlumdur ki, ünsiyyət hər bir təşkilatın gördüyü işdən asılı olmayaraq qazanacağı uğurda mühüm rol oynayır. Bu mənada kommunikasiya strategiyası transmilli şirkətlərin biznesinin məqsəd və vəzifələrinə uyğunlaşdırılmalıdır. Əks halda, əgər çoxmillətli şirkətlər öz kommunikasiya strategiyalarını bizneslərinin məqsəd və vəzifələrinə uyğunluğunu təmin etməsələr, müxtəlif mədəniyyətlər və coğrafiyalar arasında uğurlu ünsiyyət yarada bilməyəcəklər.

Ünsiyyət üslubları öz fərqli xüsusiyyətləri ilə seçilir. Hər bir ünsiyyət tərzinin öz müsbət və mənfi cəhətləri var. Bütün zamanlar üçün üz-üzə ünsiyyət ən təsirli üsul olsa da, vəziyyətdən asılı olaraq düzgün ünsiyyət tərzini seçmək (telefon, e-poçt və s.) məqsədə çatmaq şansını daha da artırır.

Müasir dünyada qlobal ünsiyyətin əsas çətinliklərindən biri bizə nəhəng görünən dünyanın əslində texnologiyanın inkişafı ilə daha kiçik və bir-birinə daha çox bağlı olması ilə əlaqədardır. Çünki, müasir texnologiya insanların istənilən yerdən, günün istənilən vaxtında bir-biri ilə ünsiyyət qurmasına şərait yaradıb. Deməli, qlobal kommunikasiyada təşkilatların üzləşdiyi bəzi problemlər mövcuddur ki, onlardan bəziləri aşağıdakılardan ibarətdir:

1. Zaman fərqi
2. Mədəniyyət fərqi
3. Dil fərqi
4. Texnoloji problemlər [12]

Bu gün təşkilatların üzləşdiyi ən mühüm problemlərdən biri onların fəaliyyətində zaman fərqinin olmasıdır. Məsələn, Nyu Yorkda fəaliyyət göstərən biri üçün müştəri bazasının Kaliforniyada yerləşməsi elə bir problem deyil. Amma, bu prosesin Kaliforniya və London arasında olduğunu düşünsək, əhəmiyyətli fərq ortaya çıxır. Müasir dövrdə bir çox şirkətlərin gündə 24 saat, həftədə yeddi gün fəaliyyət göstərmələri, işçilərin çevikliyi və başqalarına uyğunlaşmaq üçün cədvəllərini tənzimləməyə hazır olmaları daha aydın olur. Deməli, zaman fərqinin yaratdığı çətinliklərlə necə məşğul olmaq və onu necə aradan qaldırmaq məsələsi hər bir təşkilatın başa düşməli olduğu vacib məsələlərdəndir.

Çağdaş dünyada ortaya çıxan digər mühüm bir məsələ mədəni müxtəliflik və ya mədəniyyət fərqidir. Belə ki, müxtəlif mədəniyyətlərin mövcud olması başqa ölkələrdən olan insanlar arasında ünsiyyətin çətinliyinə gətirib çıxarır. Bu, iş mühitində işə götürülmə, işdən çıxarılma, iş saatına əməl olunması, üzərinə düşən öhdəliyi hansı zaman çərçivəsində yerinə yetirmənin vacibliyi və s. məsələlərdə özünü göstərir. Buna görə də, hər hansı bir təşkilat əgər qlobal miqyasda fəaliyyət göstərirsə, öz kontingentinin dünyanın müxtəlif yerlərində hansı davranışının məqbul olduğunu başa düşdüyünə əmin olmalıdır. Yeri gəlmişkən, qeyd edək ki, bu hələ mədəniyyət fərqinin yalnız çox kiçik

və cüzi bir hissəsidir. Nəzərə alsaq ki, bir vaxtlar qərb dünyasında adi olan bəzi təcrübələr artıq dünyanın digər yerlərində o qədər də standart deyil, deməli, beynəlxalq aləmdə fəaliyyət göstərən təşkilatlar öz təcrübələrini yerli adətlərə uyğunlaşdırmaq üçün səy göstərməlidirlər.

Qlobal dünyada ünsiyyət zamanı yarana biləcək üçüncü problem dil və terminologiya məsələsidir. Düzdür, burada tərcümə üsulu kömək edə bilər, amma hazırda bir çox təşkilatların da gəldiyi qənaət bundan ibarətdir ki, bir çox hallarda tərcümə prosesinin özü anlaşılmazlıqlara səbəb ola bilir. Ona görə də, sadəcə olaraq sənədləri başqa dilə tərcümə etmək həmişə nəzərdə tutulan məsələni aydınlaşdıra bilmir. Bu səbəbdən də, tərcümə prosesində konkret terminlərin arxasında duran mənanın başa düşülməsi təmin edilməlidir.

Dördüncü mühüm məsələ texnoloji problemlərlə bağlıdır. Belə ki, müasir iş dünyasında texnologiya getdikcə daha mühüm rol oynayır. Çünki, mövcud mobil cihazların sayının artması ilə demək olar ki, hər yerdən məlumat əldə etmək əvvəlkindən daha asan olmuşdur. Məhz bu səbəbdən də, hər hansı bir təşkilat öz işçilərinə yeni texnologiyalardan səmərəli istifadə etmək üçün lazımi təlimlər verməlidir. Bu sahədə ümumi istifadə olunan iki yanaşma qlobal ünsiyyət üçün daha mühüm rol oynayır ki, bunlar da video konfrans və e-poçtdur. Video konfrans iştirakçılar arasında real vaxtda qarşılıqlı əlaqə yaratmağa imkan verir ki, bu zaman iştirak edən bütün tərəflər eyni vaxtda bir-birini görə bilirlər. Digər tərəfdən, e-poçt asinxron ünsiyyətə imkan yaradır. Qeyd etdiyimiz bu iki üsuldan hansının seçilməsi isə konkret tapşırıqdan və məqsəddən asılıdır. Əgər ünsiyyətin sürətli qurulması nəzərdə tutulubsa, video konfransdan istifadə edilə bilər. Əks halda vaxt məhdudiyyəti yoxdursa və təlimatların ətraflı göndərilməsinə ehtiyac varsa, o zaman e-poçt tərcih olunar.

Kommunikasiya müdaxilələri istər innovasiya, istər turizm və istərsə də iqtisadi inkişafda təbliğat kampaniyalarının idarə edilməsindən tutmuş müsbət dəyişikliyin təşviqinə və müxtəlif sosial-iqtisadi problemlər haqqında məlumatlılığın artırılmasına qədər özünü göstərir. Kommunikasiyanın müxtəlif formaları iqtisadi inkişafı sürətləndirmək və davamlı inkişafa nail olmaq üçün bir-birini tamamlayan, eyni zamanda zəruri taktika kimi görünür. Burada davranışı dəyişdirmək, məlumat hazırlamaq və hazırlanan məlumatı yaymaq, maraqlı tərəfləri cəlb etmək və ünsiyyəti asanlaşdırmaq üçün müxtəlif ünsiyyət taktikalarından istifadə edilir. Bu zaman müxtəlif auditoriyaların media üstünlüklərinə, yerli kontekstə və həssas icmaların xüsusi ehtiyaclarına ciddi diqqət yetirilməlidir. Burada kommunikasiya müdaxilələrinin əsasını təsir göstərmək, sahibkarlıq mədəniyyətlərinin təşviqi, onların səlahiyyətlərinin artırılması, eləcə də, dövlət-özəl tərəfdaşlıqlarının təşviqi təşkil edir. Bir sözlə, kommunikasiya iqtisadi inkişaf üçün hər zaman sosial inteqrasiyanı təmin edən və dəyişikliyə sövq edən nəticələr əldə edilməsində güc multiplikatorudur.

Təbii ki, kommunikativ fəaliyyətin idarə edilməsi bununla məhdudlaşmır. Burada layihənin görünməsi və markalanması, xalq diplomatiyası və təbliğat, ticarətin təşviqi, vəkillik və siyasət dialoqu da önəm təşkil edir [11].

Son zamanlar qloballaşma, iqtisadi böhran, eləcə də rabitənin sənayeləşməsi ilə əlaqədar olaraq iqtisadiyyatın rolunun yüksəlməsi insanların bu sahəyə olan marağının artmasına səbəb olmuşdur. Çünki, baş verən dəyişikliklər, yeni situasiyalar özü ilə birlikdə yeni konsepsiyalar və yeni yanaşmalar da gətirir. Məhz baş verən yeniliklərdən daha tez və ətraflı məlumat almaq üçün həm mediadan, həm də digər kommunikasiya kanallarından istifadə etmək zərurəti də meydana çıxır ki, bu da yeni bir konsepsiyanın yaranmasına gətirib çıxarır. "İqtisadiyyatın kommunikasayaları"[5] adlanan bu konsepsiya elə iqtisadiyyatla kommunikasiya arasında olan əlaqəni, iqtisadi kommunikasiyanın əsas cəhətlərini özündə cəmləşdirir.

İqtisadiyyatla bağlı hadisələrin, fəaliyyətlərin və ya insanların maraq dairəsinin daha çox XXI əsrdə ortaya çıxdığını görürük. Demək olar ki, gündəlik həyatımızın bir sahəsinə çevrilən iqtisadiyyata maraq o dərəcədədir ki, insanlar bilərəkdən, ya bilməyərəkdən onunla məşğul olurlar. Bəzən hava proqnozunu izləyirmiş kimi iqtisadi yeniliklər və ya dəyişikliklərlə bağlı xəbərləri izləyir, dinləyir və rəy bildirirlər. Bu da özlüyündə yeni bir konsepsiya, daha dəqiq desək, baxış bucağı yaradır ki, ünsiyyət sahəsində yaranan bu yeni ünsiyyət üsuluna, yəni ixtisas sahəsinə elə iqtisadiyyatın kommunikasiyası demək daha doğru olar. Haqlı olaraq qarşıya belə suallar çıxır: Nə üçün iqtisadiyyatda kommunikasiyanın əhəmiyyəti getdikcə artır, buna səbəb nədir? İqtisadiyyat kommunikasiyasının əsas komponentləri hansılardır? İqtisadi gündəm necə formalaşır?

**TƏDQIQAT METODU**

Öncə qeyd edək ki, iqtisadiyyatda kommunikasiyanın rolunun və önəminin artmasının müəyyən səbəbləri var. Bunlar qloballaşma, rabitənin sənayeləşməsi və iqtisadi böhrandır. Kommunikasiyanın iqtisadiyyatda əhəmiyyətinin artmasının səbəbi rabitənin sənayeləşmiş olmasıdır. Bu gün kütləvi informasiya vasitələri beynəlxalq iqtisadiyyat üçün həm kommersiya, həm də sənaye gücünə çevrilmişdir. Çünki, televiziya, radio, qəzet və dövri nəşrlərin istehsalı, yayımı və təbliği böyük sərmayələrlə həyata keçirilir və bunlardan böyük gəlirlər əldə edilir. Deməli, son illər əldə edilən gəlirlər və məşğulluq KİV sektoruna böyük miqdarda pul axınının mövcud olduğunu göstərir. Beləliklə, ümumi rəyə artan təsir gücünə malik olan sənayeləşmiş kütləvi kommunikasiya media iqtisadiyyatı adlanan yeni və əhəmiyyətli bir termini də ortaya çıxarır.

İqtisadiyyatda kommunikasiyanın əhəmiyyətinin artmasının ikinci səbəbi isə iqtisadiyyatın kommunikasiyasının inkişaf dövrlərinə baxdıqda qarşılaşdığımız və milli iqtisadiyyatda da çox yaşanan iqtisadi böhrandır. Bu isə daha çox iqtisadiyyatın çətin və qeyri-müəyyənlik yaşadığı dönəmlərdə məhz iqtisadi xəbərlərə ehtiyacın artması ilə bağlıdır. Çünki, ictimaiyyət daha çox belə zamanlarda məlumat almağa maraqlı olur. Müxtəlif ölkələrin iqtisadi böhran yaşadığı dönəmlərdə media üzərindən maraq göstərilən mövzuların faiz nisbətinə baxdıqda görürük ki, əgər başqa zamanlar idman, ailə, dostluq və s. mövzular üstünlük təşkil edirdisə, məhz iqtisadi böhran zamanı iqtisadiyyatın fərdlərə, qurumlara və ictimai qüvvələrə təsiri artır və əvvəlki dövrlərin əksinə olaraq iqtisadiyyat siyasəti dəyişməyə başlayır, gündəmin digər mövzularını üstələyir. Beləliklə, iqtisadiyyatda kommunikasiyanın əhəmiyyəti və təsiri də artır.

Ümumiyyətlə, ünsiyyət qısa mesaj mübadiləsi prosesidir ki, ayrı-ayrı fərdlər və ya bütöv icmalar arasında xəbərlərin, ideyaların, faktların mübadiləsi kimi həyata keçirilir. Buna qısaca sosial qarşılıqlı əlaqə prosesi də demək olar [5]. Ünsiyyətə verilən başqa bir tərifdə isə belə deyilir: Ünsiyyət arzu olunan hədəfə və ya nəticəyə çatmaq üçün həyata keçirilən iki istiqamətli qarşılıqlı əlaqənin qurulması prosesidir [3]. İqtisadiyyat isə cəmiyyətdə mövcud olan dəyərlərin, sərvətin istehsalı, onların bölüşdürülməsi və istehlak edilməsi əlaqədar olan fəaliyyətlərdir [4-192-198]. Əvvəllər bir-birilə uzaqdan-yaxından əlaqəsi olmasa da, bu gün bu iki sahə bir-birinə inteqrasiya olunmuş formadadır, bir –birilərini qidalandıran, gücləndirən faktlara çevrilmişlər. Bu iki sahənin əlaqəsi nəticəsində tamamilə yeni anlayışlar ortaya çıxır ki, bunlardan rabitə iqtisadiyyatı artıq bir elm sahəsinə çevrilmişdir. Bundan başqa fərdlərin, qurumların və iqtisadi güclərin ünsiyyəti olan iqtisadiyyatın ünsiyyəti də bu iki anlayışı birləşdirən yeni konsepsiya kimi ortaya çıxır.

İqtisadi kommunikasiya nədir? İqtisadi kommunikasiya iqtisadi sistemin formalaşmasına kömək edən ünsiyyət prosesi olaraq fərdlər və ya qruplar (qurumlar) arasında mütəmadi və qarşılıqlı fikir, xəbər və ya məlumat mübadiləsidir. Buradakı ünsiyyət iqtisadiyyatın məhsuldar, şəffaf, effektiv, aydın və koordinasion olmasına imkan verir. Nəzərə alsaq ki, cəmiyyətin müxtəlif təbəqələri iqtisadi nəticələrini, xeyirlərini qarşılamaq üçün müxtəlif üsullarla məlumat mübadiləsi həyata keçirirlər, o zaman deyə bilərik ki, iqtisadi kommunikasiya məhz böyük ictimai qrupların mühüm qərarlarını təmin edir və gələcək işlərində qazanacağı uğurlarda mühüm rol oynayır.

İqtisadi kommunikasiya müxtəlif mərhələlərdən ibarətdir. Bunlar aşağıdakılardır:

1. **Mənbələr**
2. **Məqsədlər**
3. **Texnikalar**
4. **Üz-üzə ünsiyyət**
5. **İnformasiya mənbəyi və hədəf auditoriya**
6. **Təsir və qiymətləndirmə** [10]

Bu sadaladığımız mərhələri belə izah etmək olar.

**Mənbələr** dedikdə iqtisadi kommunikasiya prosesində iqtisadi qurumlarla ictimaiyyət arasında əlaqəni yaradan, təmin edən təşkilatlar nəzərdə tutulur. Bu qurumlar və ya qurumlararası departamentlər reklam, media, informasiya agentləri məsləhətçiləri vasitəsilə ictimaiyyətlə əlaqə saxlaya bilər. Onların əsas vəzifələri ölkənin və dünyanın gündəmində olan sosial, siyasi və iqtisadi inkişafı izləmək, qurumları həmin yeniliklər barədə mütəmadi məlumatlandırmaqdır. Eyni zamanda, təşkilatlara öz siyasətini həyata keçirməkdə və davranış tərzini müəyyənləşdirməkdə yardımçı olmaq, eləcə də kommunikasiya işləri üçün plan və proqram hazırlamağa kömək etməkdir.

**Məqsədlər** – burada iqtisadi kommunikasiyanın əsas məqsədi kimi institut və ictimaiyyət arasında məlumat mübadiləsini təmin etmək, başqa sözlə, qurum və onun ətraf mühiti üçün kommunikasiya şəbəkəsi qurmaq nəzərdə tutulur. Kommunikasiya işlərinin yaxşı planlaşdırılması ilə bərabər iqtisadi qurumların göndərdiyi mesajların inandırmaq, həvəsləndirmək, öyrətmək və təbliğ etmək məqsədləri də mövcuddur.

**Texnikalar** – İqtisadi kommunikasiya prosesində iqtisadi qurumlar həm gündəmi izləmək, həm özlərini tanıtmaq, həm də ictimaiyyəti öz ideyalarına inandırmaq məcburiyyətindədirlər ki, burada da müxtəlif vasitələrdən və üsullardan istifadə edirlər. Bunlardan ən əhəmiyyətli olanlarını qeyd edək:

**a) İctimaiyyətlə əlaqələr –** kommunikasiyanın həm ətraf mühiti tanımaq və həm də özlərini tanıtmaq məqsədilə yaxşı planlaşdırılmış və proqramlaşdırılmış şəkildə dəstəklənən tətbiqi prosesidir. Bu zaman qurumlar özlərindən kənarda olan peşəkar ictimaiyyətlə əlaqələrini agent-məsləhətçiləri vasitəsilə təmin edir, əllərində olan məlumat, bilik və hesabatlar vasitəsilə ictimai, iqtisadi və siyasi inkişaf prosesini izləyə bilirlər. Beləliklə, öz imiclərini gücləndirirlər. Bu gün ölkəmizdə ictimai münasibətlərin təsiri və əldə oluna biləcək nəticəsinin geri dönüşü uzun zaman aldığından onun dəyəri və əhəmiyyəti, təəssüf ki, o qədər də dərk edilmir.

**b) Reklam -** ən təsirli məlumatlandırıcı, yönləndirici ünsiyyət üsuludur. Əldə etdiyi gəlirlərə görə istər beynəlxalq, istərsə də milli iqtisadiyyatda mühüm paya malik olan reklam xidmət və ideyasının yaxşı qiymətə ödənildiyi fəaliyyət məcmusudur. Onun vasitəsilə iqtisadi qurumlar həm institusional fəaliyyətlərini, həm də mal və xidmətlərini ictimaiyyətə çatdırırlar. Peşəkar reklam agentləri ilə işləyən özəl sektorların intensiv şəkildə istifadə etdiyi ünsiyyət üsulu olan reklam iqtisadi kommunikasiyanın əsas özüllərindən birini təşkil edir.

**c) Təzyiq qruplarının fəaliyyəti –** iqtisadi kommunikasiyada nühüm yerlərdən birini tutur. Onun əsas fəaliyyəti iqtisadi və siyasi qərarları öz xeyirlərinə dəyişmək üçün qərar qəbuletmə mexanizmlərinə təsir etməkdir. Burada daha çox nəzərə çarpan fəaliyyətlər mətbuat görüşləri, brifinqlər, rəsmi görüşlərə qatılmaq, üzbəüz müsahibələr, qərar vermə səlahiyyəti olan qurumlara və ya şəxslərə məktublar göndərmək və hesabat təqdim etməkdir.

**Üz-üzə ünsiyyət** - İqtisadi kommunikasiyada fərqli ünsiyyət formalarının tətbiq olunduğu metodlardan biri üz-üzə ünsiyyətdir. Əsasən təzyiq qrupları və ictimaiyyətlə əlaqələr üçün istifadə olunan üz-üzə ünsiyyət (face to face communication) daha çox KİV (radio, dövri nəşrlər, televiziya, qəzet və s.) vasitəsilə informasiyanın geniş kütləyə ötürülməsini nəzərdə tutur. Burada digər ünsiyyət metodu olaraq iqtisadi jurnalistikanı da qeyd etmək olar. Daha çox iqtisadiyyatla əlaqəli xəbərlərlə məşğul mütəxəssis bir sahə olan iqtisadi jurnalistika üçün mənbə mətbuat və ya hansısa bir informasiya qurumu olduqda daha effektiv olur. İqtisadi kommunikasiyanın mühüm elementləri sırasında müəyyən məqsədlər üçün təşkil edilən sorğular da var. Bu sorğular vasitəsilə ictimaiyyətin münasibətini və rəyini, eləcə də sektorial analizləri müəyyənləşdirmək olur ki, bu da bilavasitə iqtisadi qurumlara kömək edir ki, mövcud vəziyyəti qiymətləndirsinlər, gələcək fəaliyyətləri ilə bağlı layihələr və planlar hazırlasınlar.

İqtisadi kommunikasiyada əsas ünsiyyət vasitəsi olaraq yuxarıda da qeyd etdiyimiz kimi radio, televiziya, dövri nəşrlərlə yanaşı, siyasi bəyanatlar, iqtisadi hesabatlar, statistika, məqalələr, kataloqlar, bülletenlər, afişalar, broşürlər, internet portalları və s. də önəmlidir. Bunların ən effektiv olanı isə vaxt və məkan baxımından düzgün və faydalı olanının seçilməsidir.

**İnformasiya mənbəyi və hədəf auditoriya** – İqtisadi kommunikasiyada informasiya mənbəyi və hədəf auditoriya ikitərəfli ünsiyyət prosesidir. Burada hər hansı bir məlumat mənbədən hədəf aoditoriyaya ötürülür, məhz hədəf auditoriya ayrı-ayrı qurumları sistematik olaraq məlumatla təmin edir. İqtisadiyyatda hədəf auditoriyası və məlumat mənbələri ümumi ictimaiyyətdən başqa, həm də dövlət və özəl sektorlar, maraq qupları, iqtisadi mətbuat, biznes və kapital mühiti, reklamçılar, universitetlər, alimlər, qərar qəbuletmə mərkəzləri, ictimaiyyətlə əlaqələr şöbələri, mütəxəssislər və s.dir.

**Təsir və qiymətləndirmə** – İqtisadi kommunikasiyada sonuncu və mühüm mərhələ yuxarıda qeyd olunan bütün metodlardan istifadə etməklə göndərilən mesajların qiymətləndirirlməsini təmin edən təsirlər və qiymətləndirmə mərhələsidir. Bu mərhələnin mürəkkəb olduğu qədər incə bir məqam olduğunu göstərən tərəfi odur ki, mesajlar hədəf auditoriya tərəfindən qəbul edilməli, maraq oyatmalı, şərh edilməli, mənimsənilməli, vacib hesab edilməlidir. Burada ötürülən məlumatların dizaynı da, ötürülmə üsul və vasitələri də təsirlərinin ölçülməsi qədər əhəmiyyətlidir.

## NƏTICƏ

Müasir dövrdə, əslində bizə nəhəng görünən dünyamız texnologiyanın inkişafı nəticəsində çox tez və asanlıqla bir-birinə bağlana bilir. Qlobal kommunikasiyada təşkilatların üzləşdiyi - zaman, mədəniyyət, dil fərqi və texnoloji problemlər mövcud olsa da, onları müəyyən qədər aradan qaldırmaq və ya ümumi standartlara uyğunlaşdırmaq mümkündür. Nəzərə alsaq ki, bir vaxtlar qərb dünyasında adi olan bəzi təcrübələr artıq dünyanın digər yerlərində o qədər də standart deyil, deməli, beynəlxalq aləmdə fəaliyyət göstərən təşkilatlar öz təcrübələrini yerli adətlərə uyğunlaşdırmaq üçün səy göstərməlidirlər. Dil və terminologiya məsələsi ilə əlaqədar deyə bilərik ki, sadəcə olaraq sənədləri başqa dilə tərcümə etmək həmişə nəzərdə tutulan məsələni aydınlaşdıra bilmədiyinə görə tərcümə prosesində konkret terminlərin arxasında duran mənanın başa düşülməsi təmin edilməlidir. Texnologiyanın bəzən insan ağlının təqib edə bilmədiyi sürətli inkişafını nəzərə alaraq, hər hansı bir təşkilat öz işçilərinə yeni texnologiyalardan səmərəli istifadə etmək üçün lazımi təlimlər verməlidir.

İqtisadi kommunikasiya prosesində iqtisadi qurumlar gündəmi izləmək, özlərini tanıtmaq, ictimaiyyəti öz ideyalarına inandırmaq məqsədilə müxtəlif vasitələrdən və üsullardan istifadə edirlər ki, burada ən vacib olanları və həmin qurumların öz imiclərini formalaşdırmasına yaxından kömək edən ictimaiyyətlə əlaqələr, reklam, üz-üzə ünsiyyət, təzyiq qruplarının fəaliyyəti və s.dir. Bütün bunlar fərdlər və ya qruplar (qurumlar) arasında mütəmadi və qarşılıqlı fikir, xəbər və ya məlumat mübadiləsini təmin edir ki, bu da öz növbəsində iqtisadi sistemi formalaşdıran ünsiyyət prosesinin əsasını təşkil edir.

Beləliklə, iqtisadiyyat və kommunikasiya bir-birindən uzaq sahələr olsa da, əslində bu gün zamanın tələbindən asılı olaraq bu iki sahənin inteqrasiyası həyatın ictimai reallığının nəticəsidir. Çünki, iqtisadiyyat da, kommunikasiya da gündəlik həyatımızın əsas proyeksiyası kimi fərqində olmasaq belə yan-yanadırlar. Müasir dövrdə iqtisadi, ictimai, siyasi inkişaf prosesi bizə imkan verir deyək ki, zamanla bu məsələ daha çox maraq obyektinə çevriləcək və yeni tədqiqatlar meydana çıxacaq.

## ƏDƏBİYYAT SİYAHISI

1. Victor, A., Ginsburgh., Shlomo Weber. (2013) Culture, Languages, and Economics.

2.Tõnu Tender / Ludwig M. Eichinger (eds.) Language and Economy Language industries in a Multilingual Europe, Contributions to the EFNIL Conference 2019 in Tallinn. 219 səh.

3. Baker, L. Larry (1990), Communications, Fifth Edition, Prentice Hall, Englewood Cliffs, New Jersey .Bolen, William A.(1981), Advertising, John Wiley and Sons, s. 4,

4. New York, Dictionnaire Larousse, Vol. 2, 1994.Gomery, D. (1993), The Centrality of Economics, Journal of Communications, 43(3),s.192-198,

5.Lloyd, Peter & Herbert (1984), Public Relations, London. Mutlu, Erol (1995), Communication Dictionary, Ark, Ankara.Nationality (Milliyet), 23 Mart 2002.

6. https://www.britannica.com/topic/language/Language-typology
7. https://www.jstor.org/stable/2155896
8. https://en.wikipedia.org/wiki/Economics_of_language
9. https://www.futurelearn.com/info/courses/multilingual-practices/0/steps/22650
10.https://www.researchgate.net/publication/273570776_COMMUNICATIONS_OFECONOMY
11. https://leadersinternational.org/focus-areas/communication-for-economic-development/
12. https://www.qualitygurus.com/communications-in-a-global-economy/

# BÖLGƏLƏRDƏ GƏNCLƏRİN MƏŞĞULLUQ VƏ PEŞƏ- İXTİSAS HAZIRLIĞI ARASINDA ƏLAQƏ

**Ləman Şərifova**
Bakı Mühəndislik Universiteti
Magistratura- İqtisadiyyatın tənzimlənməsi ixtisasının tələbəsi
Isherifova1@std.beu.edu.az

**Xülasə**

Azərbaycanda məşğulluqla bağlı olan problemlərin təhlili göstərir ki, bu problem bazar iqtisadiyyatının mühüm məsələlərindəndir və problemi həll etmədən effektiv iqtisadi fəaliyyəti nizamlamaq mümkün deyildir. Baxdığımız tədqiqat işinin əsas məqsədi bölgələrdə gənclərin məşğulluq dərəcələri və peşə-ixtisas hazırlığı arasındakı əlaqənin təhlilindən ibarətdir. Təqdiqat işində gənclərin peçə hazırlığı ilə məşğulluq dərəcələri arasındakı əlaqənin tədqiq olunması baxdığımız işin elmi yeniliyi hesab olunur. Tədqiqat işinin nəticələrindən sosial fakültələrin tələbələri dərs proqramlarında, bundan sonrakı aparacaqları tədqiqat işlərində istifadə edə bilərələr.

**Açar sözlər: peşə hazırlığı, ixtisas seçimi, məşğulluq, gənclərin məşğulluq səviyyəsi**

## RELATIONSHIP BETWEEN YOUTH EMPLOYMENT AND VOCATIONAL TRAINING IN REGIONS

**Summary**

The analysis of problems related to employment in Azerbaijan shows that this problem is one of the important issues of the market economy, and it is impossible to regulate effective economic activity without solving the problem. The main goal of our research work is to analyze the relationship between the employment rates of young people in the regions and vocational training. The study of the relationship between youth veil training and employment rates is considered a scientific innovation of the work we are looking at. The results of the research work can be used by the students of the social faculties in their lesson programs and in their future research work.

**Key words:** vocational training, choice of specialty, employment, youth employment level

**Giriş**

Son 15 ildə Azərbaycanda Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət proqramları, konsepsiyalar nəticəsində gənclərin məşğulluğunun yüksəldilməsi istiqamətində xeyli naliyyətlər əldə olunmuşdur. Görülən işlərin nəyticəsində yoxsulluq 49 faizdən təxminən 6 faizə, gənclərin məşğulluqsəviyyəsi isə bu əsrin əvvəlindəki 80 faizdən 91, 6 faizə yüksəldilmişdir.Ötən ilin sonlarında Bakıda təşkil olunan toplantıda qeyd olunduğu kimi, ölkəmizdə aparılan iqtisadi islahatlar öz nəticəsini verib. 2017-18-ci illər üzrə rəqəbətədavamlılıq göstəricisində ölkəmizin dünya üzrə 37-dən 35-ə yüksəlməsi, əmək bazarının səmərəliliyi göstəricisində 26-dən 17-yə irəliləməsi bu sahədə görülən işlərin nəticəsidir. Bu işlər nəticəsində həmçinin Azərbaycanda gənc işçi qüvvəsinin məşğulluğu axırıncı illər ərzində təxminən 88 faizdən 92 faizə yüksəlmişdir. Bu nəticələr Azərbaycanı işsizliklə bağlı problemlərin həllinə görə beynəlxalq səviyyədə ilk onluğa gətirib çıxarıb.

Qeyd edək ki, ölkəmizin əhalisi gənc olduğundan bu faktor gənclərin məşğulluğu ciddi əhəmiyyət kəsb edir. Belə ki, Azərbaycanda əhalinin orta yaşı ötən ilin məlumatına görə, 32,3 yaş təşkil edir. Bu da dünya göstəricilərindən (29 yaş) nisbətən yüksək olsa da, inkişaf etmiş ölkələrlə (40 yaş) müqayisədə xeyli yüksəkdir. Dünyada, 14 yaşa qədər olan əhali dünya əhalisinin 34%-ni, 15-65 yaş arası olanlar 58%-ni, 65 yaşdan yuxarı isə 8 faizini təşkil edir. Bu göstəricilərəgörə də Azərbaycanda vəziyyət cox yazxşıdır. Belə ki, ötən il Bakıda keçirilən konfransada bəyan olunub ki, ölkəmizdə 14 yaşa qədər əhali ümumi əhalinin təxminən 23 faizini, gənclər, yəni yaşı 15-dən 65-ə qədər olanlar 71 faizini, cəmi 6 faizini isə 65 yaşdan yuxarı olanlar təşkil edir. Konfransda həmçinin qeyd olunub ki, Azərbaycanda əsrin əvvəlinə nisbətən əmək qabiliyyəti yaşında olanların xüsusi çəkisi təxminən 9 faiz artıb. Bu da daha çox yeni işlərinə tələbat formalaşdırıb.

## TƏDQIQAT METODU

**Bölgələrdə gənclərin məşğulluq və peşə- ixtisas səviyyələri arasındakı əlaqənin təhlili**

Baxdığımız tədqiqat işində gənclərin müasir dövrdə yaş qruplarına görə seçdikləri peşələr və onların təhsil səviyyələrinə görə bölgüsünün geniş təhlilinə baxacağıq.

**Cədvəl 1. Məşğul əhalinin təhsil səviyyəsi və yaş qrupları üzrə bölgüsü (2023-cü il)**

| Yaş qrupları | Məşğul əhali, cəmi | o cümlədən təhsil üzrə | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | ali təhsil | orta ixtisas təhsili | peşə təhsili | tam orta təhsil | ümumi orta təhsil | ibtidai təhsil | təhsili yoxdur |
| **Cəmi** | **4901,1** | **824,1** | **548,8** | **278,4** | **2915,5** | **292,9** | **39,2** | **2,2** |
| 15-19 | 90,8 | - | 5,5 | 2,4 | 67,8 | 14,9 | 0,1 | 0,1 |
| 20-24 | 434,8 | 77,9 | 51,7 | 20,4 | 239,0 | 45,3 | 0,3 | 0,2 |
| 25-29 | 667,4 | 168,9 | 78,9 | 24,7 | 353,9 | 39,9 | 0,8 | 0,3 |
| 30-34 | 743,5 | 97,0 | 58,8 | 35,9 | 519,8 | 29,5 | 2,2 | 0,3 |
| 35-39 | 659,9 | 93,4 | 42,1 | 40,7 | 461,3 | 19,1 | 2,9 | 0,4 |
| 40-44 | 615,1 | 73,9 | 61,1 | 38,0 | 407,8 | 30,3 | 3,8 | 0,2 |
| 45-49 | 564,9 | 94,9 | 69,5 | 36,4 | 337,2 | 22,8 | 3,9 | 0,2 |
| 50-54 | 555,3 | 78,3 | 81,8 | 29,4 | 337,2 | 24,5 | 3,9 | 0,2 |
| 55-59 | 371,2 | 108,2 | 73,7 | 26,3 | 125,3 | 31,6 | 6,0 | 0,1 |
| 60-64 | 152,9 | 26,6 | 19,6 | 17,5 | 61,2 | 20,2 | 7,6 | 0,2 |
| 65+ | 45,3 | 5,0 | 6,1 | 6,7 | 5,0 | 14,8 | 7,7 | 0,0 |

**Mənbə:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi
https://www.stat.gov.az/source/labour/

Göründüyü kimi, Azərbaycanda gənc işçi qüvəsinin böyük hssəsi müasir əmək bazarında əsas tələb olan peşə -ixtisas təhsilinə malik deyil. Buna görə də, ölkəinin rəsmi şəxsləri də, hökumət təmsilçiləri də bunun ciddi bir problem olduğunu söyləyiblər. Məsələn, Bakıda ötən il keçirilən konfranslardan birindsə hökumət təmsilçisi açıqlayıb ki, 2025-ci ilə qədər əmək bazarına ən azı 1 milyon 127 min 200 nəfər daxil olacağı gözlənilir. Yəni, ildə təxminən 125 min 200 nəfər 18 yaşını keçərək, müstəqil həyata atılacaq. Bunun birhisəsinin ali təhsil almağa yönəldiyini nəzərə aldıqda, ildə təxminən yüz minə yaxın gəncin əmək fəaliyyətinə başlamaq istəyəcəyi məlum olur. Hansı ki, onlar müəyyən peşə və ixtisasa yiyələnməzsə, iş tapmaqda çətinliklə üzləşəcəklər. Buna görə də bu sahədə ciddi işlər həyata keçirilməli, gənc işçi qüvvəsinin müasir dövrün gözləntilərinə cavab verməsini təmin etmək lazımdır [6].

Tədqiqat işimizin əsas təhlil məqsədi bölgələrdə məşğul gənclərin peşə təhsil göstəriciləri arasındakı əlaqənin təhlil olunmasından ibarətdir. Bu məqsədlə aşağıdakı cədvəllərdəki məlumatları qeyd etməyimiz vacibdir.

**Cədvəl 2. Məşğul əhalinin sayı**

| İllər | Məşğul əhalinin sayı |
|---|---|
| 2000 | 3855,5 |
| 2001 | 3891,4 |
| 2002 | 3931,1 |
| 2003 | 3972,6 |
| 2004 | 4016,9 |
| 2005 | 4062,3 |
| 2006 | 4110,8 |
| 2007 | 4162,2 |
| 2008 | 4215,5 |
| 2009 | 4271,7 |
| 2010 | 4329,1 |
| 2011 | 4375,2 |
| 2012 | 4445,3 |
| 2013 | 4521,2 |
| 2014 | 4602,9 |
| 2015 | 4671,6 |
| 2016 | 4759,9 |
| 2017 | 4822,1 |
| 2018 | 4879,3 |
| 2019 | 4785,6 |
| 2020 | 4721,2 |
| 2021 | 4831,1 |
| 2022 | 4901,1 |

**Mənbə:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi
https://www.stat.gov.az/source/labour/

**Cədvəl 3. Peşə təhsili müəssisələrində təhsil alanların sayı, nəfər**

| İllər | Peşə təhsili alanların sayı |
|---|---|
| 2000 | 22944 |
| 2001 | 21619 |
| 2002 | 20753 |
| 2003 | 21677 |
| 2004 | 21563 |
| 2005 | 22189 |
| 2006 | 23813 |
| 2007 | 24455 |
| 2008 | 25184 |
| 2009 | 25562 |

| | |
|---|---|
| 2010 | 27330 |
| 2011 | 28993 |
| 2012 | 30664 |
| 2013 | 29234 |
| 2014 | 25414 |
| 2015 | 24482 |
| 2016 | 23814 |
| 2017 | 24024 |
| 2018 | 23965 |
| 2019 | 23193 |
| 2020 | 22012 |
| 2021 | 22749 |
| 2022 | 25926 |

**Mənbə:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi
https://www.stat.gov.az/source/labour/

Qeyd etdiyimiz göstəricilər arasındakı əlaqənin təyin edilməsi üçün biz qurduğumuz modeldə reqressiya təhlilindən istifadə edəcəyik.

**Reqressiya analizi.** Reqressiya təhlili bir və ya bir neçə müstəqil dəyişənin digər asılı dəyişənə təsirinin statistik təhlili üsuludur. Onun məqsədi asılı və bir və ya bir neçə müstəqil dəyişən arasındakı əlaqəni araşdırmaqdır. Burada əsas vəzifələrdən biri asılı dəyişənlərin sistematik təsiri nəticəsində müstəqil dəyişənlərin davranışını izah etmək və onları təsadüfi təsirlərdən fərqləndirməkdir.

Müstəqil dəyişənlərə reqressorlar və ya proqnozlaşdırıcılar, asılı dəyişənlərə isə kriteriya dəyişənləri deyilir. Tədqiqat yalnız riyazi asılılığa baxır [5].

Xüsusiyyətlərin axtarışı iki yolla həyata keçirilir: xətti reqressiya, logistik reqressiya və möhkəm reqressiya. Xətti reqressiyada model asılı dəyişən və müstəqil dəyişənlərin xətti kombinasiyası kimi qurulur. Məsələn, ən sadə xətti reqressiya modelləri tək dəyişən x-dən asılıdır:

$$y = \beta_0 + \beta_1 x + e$$

burada β xətti düsturun əmsallarıdır.

Bizim təhlilimizdə asılı dəyişənlər məşğul əhalinin sayı, əsas dəyişənlər isə peşə təhsili alan gənclərin say göstəriciləridir.

**Cədvəl 4. Reqressiya təhlilinin nəticələri**

| | A | B | C | D | E | F | G | H | I |
|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | SUMMARY OUTPUT | | | | | | | | |
| 2 | | | | | | | | | |
| 3 | *Regression Statistics* | | | | | | | | |
| 4 | Multiple R | 0,282485632 | | | | | | | |
| 5 | R Square | 0,797981324 | | | | | | | |
| 6 | Adjusted R Square | 0,359789958 | | | | | | | |
| 7 | Standard Error | 0,981240892 | | | | | | | |
| 8 | Observations | 23 | | | | | | | |
| 9 | | | | | | | | | |
| 10 | ANOVA | | | | | | | | |
| 11 | | *df* | *SS* | *MS* | *F* | *Significance F* | | | |
| 12 | Regression | 1 | 12131056 | 12131056 | 1,821079525 | 0,191554702 | | | |
| 13 | Residual | 21 | 139890747,5 | 6661464,166 | | | | | |
| 14 | Total | 22 | 152021803,5 | | | | | | |
| 15 | | | | | | | | | |
| 16 | | *Coefficients* | *Standard Error* | *t Stat* | *P-value* | *Lower 95%* | *Upper 95%* | *Lower 95,0%* | *Upper 95,0%* |
| 17 | Intercept | 15219,94212 | 6835,479576 | 2,22660926 | 0,03704985 | 1004,784162 | 29435,10008 | 1004,784162 | 29435,10008 |
| 18 | X Variable 1 | 2,091453545 | 1,549828942 | 1,349473795 | 0,191554702 | -1,13159218 | 5,31449927 | -1,13159218 | 5,31449927 |

Yuxarıdakı cədvəldə apardığımız reqressiya təhlilinin nəticələri verilmişdir. Təlil nəticəsində görürük ki, R kvadratın aldığı dəyər 0.79-dur yəni qurduğumuz model düzgündür və mənalıdır. Bundan başqa F dəyərinin 1.82 anlamlı F dəyərinin isə 0.19 olması anlamlılıq dərəcəsini yüksəldir. Yəni peşə təhsilinin əhatəsinin genişlənməsi əhalinin məşğulluğuna təsir edir.

Həmçinin analizin təhlilini davam etdirdikdə görürük ki, t – testinin dəyəri də 0-dan fərqlidir və f dəyərinə yaxındır, bu da bizim qurduğumuz modelin həqiqətə uyğunluğunu sübut edir. Burada P - dəyəri də bizim üçün çox əhəmiyyətlidir. Belə ki, P dəyərinin 0-dan kiçik olmağı reqressiya analizi üçün vacib məqamlardandır. Bizim təhlilimizdə də P dəyəri 0.03 və 0.19-dur ki, bu da asılı dəyişənlərin əsas dəyişənlərə təsirini sübut edir.

**Nəticə**

Tədqiqat nəticəsində aldığımız məlumatlara əsasən deyə bilərik ki, peşə hazırlığı və ixtisas seçimi bir- biri ilə olduqca əlaqəlidir və son dövrdə gənclərin peşə hazırlığına göstərilən diqqətlə bu sahədə olduqca əhəmiyyətli addımlar atılmışdır. Təhsil və məşğulluq arasındakı əlaqə olduqca əhəmiyyətlidir. Təhsilli gənclər daha yaxşı işlərə yiyələnib daha az işsizlik statusu alırlar. Bu səbəblə də gənclərin daha çox peşə hazırlığına yönəldilməsi, daha effektiv iş tapmalarına müsbət təsir edib onların gələcək həyatlarına daha yaxşı hazırlayacaq.

**Ədəbiyyat siyahısı**

**1.** "AR Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyinin yaradılması və fəaliyyətinin təmin olunması haqqında" AR Prezidentinin Fərmanı.

**2.** İsmayılov İ.E..Azərğbaycanda gənc işçi qüvvəsinin məşğulluğunun təmin edilməsində problemlər "Əmək və Sosial Problemlər" adlı AR ƏƏSMN-in Əmək və Sosial Problemlər üzrə Elmi Tədqiqat və Tədris Mərkəzinin elmi əsərlər toplusu. I Buraxılış (15), BAKI - 2015.

**3.** Kənd təsərrüfatında iqtisadi islahatlar. Vergi jurnalı, Bakı: Azərnəşr. 2015. N 4, 23 s.

**4.** Mehbaliyev S., İskəndərov R.: "Əmək bazarı və əhalinin sosial müdafiəsi" , Bakı –2012.

**5.** Məmmədli O. Q., İsmayılov F. İ. Bazar iqtisadiyyatının dövlət tənzimlənməsi. Bakı: MBM, 2016, 432 s.

**6.** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi
https://www.stat.gov.az/source/labour/

# AZƏRBAYCANDA TƏTBIQ OLUNAN DAYANIQLI IQTISADI INKIŞAF STRATEGIYALARINDA ƏLDƏ OLUNAN TƏCRÜBƏLƏR

**SAMIR IBRAHIMOV**

Bakı Mühəndislik Universiteti
İqtisadiyyat/Makroiqtisadi siyasət
*Sibrahimv2@gmail.com*
Bakı, Azərbaycan

**ABSTRACT**

The article discusses "Experiences Gained in the Implementation of Sustainable Economic Development Strategies in Azerbaijan." It touches upon several important topics around the outlined headings. Starting with the understanding of economic growth and development, the article presents various indicators of economic development and their intended organization. Income distribution, human capital, population growth, and education and healthcare are among these topics. In the section on economic development strategies, issues such as import substitution, export promotion, and hybrid strategies are addressed. The results obtained during the implementation of these strategies in Azerbaijan form the main content of the article. Additionally, discussions are held regarding the positive and negative aspects of Azerbaijan's economic development and a more detailed analysis is provided on the experiences gained in Azerbaijan's economic development. The article examines the

strengths and weaknesses of Azerbaijan's economic development, current experiences, and future perspectives. Based on these headings, the article explores the experiences gained and the strategic direction of Azerbaijan's economic development. These experiences help understand the current state of Azerbaijan's economy and provide a roadmap for future economic development.

**KEY WORDS: Economic development indicators, Economic development strategy, Azerbaijan economic development strategy practices**

**XÜLASƏ**

Məqalədə, "Azərbaycanda Tətbiq Olunan Dayanıqlı İqtisadi İnkişaf Strategiyalarında Əldə Olunan Təcrübələr" mövzusunu müzakirə edir. Başlıqlar ətrafında bir sıra əhəmiyyətli mövzulara dəyinilmişdir. İqtisadi artım və inkişaf anlayışı ilə başlayaraq, məqalə iqtisadi inkişafın müxtəlif göstəricilərini və onların nəzərdə tutulan təşkilatlanmasını təqdim etməkdədir. Gəlir bölgüsü, insan kapitalı, əhali artımı və təhsil və səhiyyə sahələri də bu mövzular arsındadır. İqtisadi inkişaf strategiyaları bölümündə, idxal və ixrac əvəzləməsi, habelə qarışıq strategiya kimi mövzularına toxunulmuşdur. Bu strategiyaların bəzilərinin Azərbaycanda tətbiqi zamanı əldə edilən nəticələr, məqalənin əsas məzmununu təşkil edir. Əlavə olaraq, Azərbaycanın iqtisadi inkişafının müsbət və mənfi vəziyyəti ilə əlaqədar müzakirələr aparılır və Azərbaycanın iqtisadi inkişafında əldə olunan təcrübələrə dair daha ətraflı təhlil verilir. Məqalə, Azərbaycanın iqtisadi inkişafının güclü və zəif cəhətlərini, mövcud təcrübələri və gələcək perspektivləri təhlil edir. Bu başlıqlar əsasında, məqalə, Azərbaycanın iqtisadi inkişafında əldə edilmiş təcrübələri və strateji yönünü araşdırır. Bu təcrübələr, Azərbaycanın iqtisadiyyatının mövcud vəziyyətini başa düşməyə kömək edir və gələcək iqtisadi inkişaf üçün bir yol xəritəsi təşkil edir.

**AÇAR SÖZLƏR: İqtisadi inkişaf göstəriciləri, İqtisadi inkişaf strategiyası, Azərbaycan iqtisadi inkişaf strategiya təcrübələri**

**GIRIŞ**

Azərbaycan son vaxtlar dinamik iqtisadi dəyişiklik və transformasiya prosesini yaşayır. Bu proses həyata keçirilən siyasət və strategiyaların təsirini, ölkənin strateji iqtisadi inkişafını formalaşdıran mühüm amilləri üzə çıxarır. “Azərbaycanda həyata keçirilən davamlı iqtisadi inkişaf strategiyaları üzrə təcrübələr” sərlövhəli məqalədə bu dinamika və strateji aspektlər geniş şəkildə müzakirə olunur. İqtisadi inkişafın əsas prinsip və konsepsiyalarına diqqət yetirməklə başlayan məqalədə gəlir bölgüsü, insan resursları, əhalinin artımı, təhsil və səhiyyə kimi kirtik sahələrə toxunulur. Bu sahələr ölkənin uzunmüddətli davamlı inkişafı üçün həyati əhəmiyyət kəsb edir və Azərbaycanın bu sahələr üzrə təcrübəsi və təcrübəsi geniş perspektiv təklif edir. İqtisadi inkişaf strategiyaları məqalənin digər diqqət mərkəzindədir. İdxal-ixrac balansı, sənaye transformasiyası, texnologiya transferi və qarışıq strategiyalar kimi məsələlər Azərbaycanın iqtisadi inkişafına istiqamət verən siyasət və strategiyaların araşdırıldığı bölmələrdir. Bu strategiyaların uğurları və çətinlikləri məqalənin təhlilinin əsas istiqamətlərin dən birini təşkil edir. Bundan əlavə, məqalədə Azərbaycanın iqtisadi vəziyyətinin ümumi qiymətlən dirilməsi, müsbət və mənfi cəhətləri, eləcə də mövcud təcrübə və gələcək proqnozlar araşdırılır. Bu çərçivədə Azərbaycanın iqtisadi inkişafının güclü və zəif tərəfləri, mövcud təcrübənin təhlili və strateji istiqamətlər, həmçinin potensial gələcək imkanlar və çağırışlar müzakirə olunur. Məqalənin ümumi məqsədi oxuculara Azərbaycanın iqtisadi inkişafında əldə edilmiş təcrübələri və strateji istiqamətləri hərtərəfli araşdıraraq ölkənin iqtisadi mənzərəsini anlamaq və gələcək istiqamətlərini proqnozlaşdırmaq üçün bələdçi verməkdir. Bu perspektivdə məqalə üç hissədən təşkil olunmaqdadır. Birinci hissədə iqtisadi artım və inkişaf anlayışları bəhs edilmiş, ikinci hissədə strategiyalar başasalınmış, üçüncü hissədə isə Azərbaycan təcrübəsi qeyd edilmişdir.

**TƏDQIQAT METODU**

## 1. İQTISADI ARIM VƏ INKIŞAF ANLAYIŞI

İqtisadi artım, qəbul olunmuş müəyyən zaman kəsiyində bir ölkənin iqtisadi artımını və yaxud ümumilikdə iqtisadi fəaliyyətlərdəki artışı ifadə edən vacib bir makroiqtisadi göstəricidir. Bu göstərici daha çox bir ölkənin milli gəlirinin, istehsalın və istehlakın artması ilə əlaqəlidir, bu da iqtisadiyyatın ümumilkdə dayanıqlılığını və artım potensialını əks etdirir. İqtisadi artım bu qədər önəmli göstərici olması bir nöqtədən də ölçülməsində tətbiq olunan metodları önəmli qılır. İqtisadi artım UDM-artımı ilə əlaqəli olduğu için iqtisadi artımın ölçülməsində daha çox UDM-in ölçülməsində istifadə olunan

metodlardan istifadə olunur. UDM-in ölçülməsi isə daha çox Real UDM və Nominal UDM ölçülmə metodu ilə aparılır.

İqtisadi inkişaf, bir ölkənin iqtisadi potensialının, dövlət qurumlarının və ölkə resurslarının məharətli və effektiv bir şəkildə istifadə olunması ilə iqtisadi rifahın artırma prosesidir. Bu rifah artımı prosesində daha çox fərdlərin gəlir səviyyəsinin yüksəlməsi, iş imkanlarının artması texnoloji ilərilәmələrin olduğu, infrastruktur inkişafı, yaşam standartlarının artması və s. bir çox sosial iqtisadi sahədə müsbət yünümlü dəyişmədir. İqtisadi inkişaf davamlı iqtisadi artımın təmin olunmasında , iqtisadiyyatın çeşidləndirilməsində, bir çox sahədə artım potensialının formalaşdırılmasında böyük bir rolu vardır. İqtisadi inkişafın iqtisadiyyatda önəmli rol oynamasının formalaşdırılması dövlət siyasətləri, iqtisadi reformlar, investisiya təşviqi, bir çox xarici və daxili faktorun əlaqələnməsi ilə gərçəkləşir.

İqitisadi dəyişkənlər bucağından düşünülən inkişaf söyləndiyində işgücünün məhsuldarlığının artırılması düşünülməkdədir. Məhsuldarlığın artırılmasında salt fərdin bacarığı ya da texnik bilgisinin artması deyil, əməyin təbii və insan qaynaqlarını işləyərək yaratdığı yığımı olan texnik bilginin artması anlaşılmaqdadır. Yığılmış texnik bilgi, sərmayə mallarını, texnologiyi, ətraf mühit dəyişkənlərini iqtisadi qrumları və.s əhatə etməkdədir (Mahmut, 1980)

## 2. İQTISADI INKIŞAF GÖSTƏRICILƏRI

İqtisadi inkişaf göstəriciləri, bir ölkənin iqtisadi vəziyyətinin ölçülməsi analiz edib dəyərləndirilməsi için istifadə edilən alətlərdir. İqtisadi inkişaf göstəriciləri, bir ölkənin iqtisadi artımı, gəlir dağılımı, inflyasiya, işsizlik kimi makroiqtisadi bir çox dəyişkənin ölçülməsində istifadə olunur. Bu göstəricilər iqtisadiyyatın vəziyyətinin analiz edilə bilməsinə şərait yaradır. Bu kimi bir çox göstəricilər iqtisadi inkişaf için tətbiq olunan strategiyaların effektini ölçür. Bu kimi göstəricilərə isə aşağıdakıları söyləmək olar

- Gəlir bölgüsü
- İnsan kapitalı
- Əhali artımı
- Təhsil və Səhiyyə və s.

### 2.1 GƏLIR BÖLGÜSÜ.

Gəlir bölgüsü, bir iqtisadiyyatın daxilindəki gəliri hansı şəkildə dağıldığını ölçən və analiz edən əsas bir inkişaf göstəricisidir. Bu göstərici, bir ölkədəki gəlirin gəlirin necə bölündüyünü və ədalətli və balanslı olub olmadığını qiymətləndirir. Gəlir bölgəsi ümumilikdə ölçülməsin də ən çox istifadə olunan metod Lorens əyrisi və Gini indeksi qəbul edilir. Lorens əyrisi şəkil-1 də görsədildiyi kimi gəlirin əhali arasında necə bölündüyünü göstərir. Şəkil 1-də bərabər bölgü xətti gəlir bölgüsünün ədalətli aparıldığı göstəricisidir. Faktiki bölgü xətti isə faktiki olaraq gəlir xalqda bölgüsünü göstərir. Arada qalan S-isə gəlir ədalətsizliyinin göstəricisidir.




Şəkil-1

Gini indeksi isə Lorens əyrisinin bir ölçüsüdür. Gini indeksində 0 ilə 1 arasında qiymət alır 0-a yaxın göstəricilər gəlirin ədalətli paylandığını 1-ə yaxın isə gəlir ədalətsizliyin çox olduğunu göstərir.

Gəlir bölgüsü ümumilikdə bu sahədə iqtisadi siyasətlərin təsirlərinin qiymətləndirmək və gəlir paylanmasını nizamlamaq, vergi siyasətlər için, sosial yardım proqramları və təhsil siyasətləri və cəmiyyətdə ədaləti tətbiq etməkdə istifadə edilən göstəricidir.

**2.2 İNSAN KAPITALI.**

İnsan kapitalı, bir ölkənin fərdlərinin ümumi bilgi bacarıqlarını və təcrübə təcrübələrini ifadə edir. Bu qavram insanların təhsil, sağlıq və digər sosial hizmətlər yoluyla qazandıqları və insan sərmayəsi olaraqda adlandırılır. İnsan kapitalı davamlı iqtisadi inkişafın davamlılğı için vacib bir faktordur. Bu kimi vacib göstərici bir ölkənin rəqabət gücünü, uzun müddətli inkişafını və dayanıqlı iqtisadiyyatın formalaşdırılmasında xüsusi rol oynayır. Bu kimi vacib bir göstərici olan insan kapitalı şəxslərin təhsil və şəxsi potensiallarını inkişaf etdirmə yolu ilə formalaşır. Səhiyyə insan kapitalının önəmli bir hissəsidir. Sağlam bir xalq işgücünün məhsuldarlığını artıraraq iqtisadiyyatın inkişafını təminində rol oynayır. Bu kimi səbəblər səhiyyə xidmətlərinin xalqa əlçatanlığının əhəmiyyətini kəsb edir. İş və təcrübəsi bu təcrübənin formalaşmasında insan resurslarının formalaşmasında bir başqa önəmli bir faktordur. Peşə ixtisasları, təcrübə proqramları və iş yerində təhsil kimi faktorlar insan kapitalının formalaşıb inkişafında böyük rolu vardır. İnnovasiya və texnolojik irəliləmələr insan kapitalının formalaşmasında rol oynayan başqa bir dəyişkəndir. Bu elmi araşdırma texnoloji inkişafı və yeni fikirlərin ortaya çıxışına təşviq yolu ilə formalaşır.

İnsan kapitalı, bir ölkənin iqtisadi potensialının formalaşdıran iqtisadi inkişaf göstəriciləri arasında önəmli rolu olan hətta ən önəmli iqtisadi inkişaf göstəricisidir. Buna görədə iqtisadi inkişafda bu göstəricinin inkişafına daha çox zaman, resurs, əmək sərf edilməlidir.

**2.3 ƏHALI ARTIMI.**

Əhali artımı iqtisadi artım için ana hərəkət verici qüvvələrdən biridir. Ölkənin iqtisadi artımı və məhsuldarlığı əhali artımı ilə düz mütənasib əlaqə mövcuddur. Əhali artımı, iş gücü potensialına birbaşa təsir görsədir çünki, daha çox insan daha çox iş gücünü və istehsal potensialı olduğu mənasına gəlir. Əhali artımı bir nöqtədən nə qədər önəmli olsa da əhali artımında bir o qədər artım tempidə önəmlidir. Əhali artımı ölkənin iqtisadi potensialını üstələməyə başladıqda yəni artım tempi optimal artım tempini üstələməsi bir nöqtədən ölkənin resurslarının bölüşdürülməsini çətinləşdirərək davamlı iqtisadi artıma problemdə yarada bilər. Daha böyük əhali topluluğu, bir nöqtədən də daha çox iş gücü və potensiyalı investisiya fürsətləri mənasına gəlir. Artan əhali bir nöqtədən bəşəri sərmayənin təhlükəsizliyini təmin edərək davamlılığını qorumaqdadır bir nöqtədən də innovasiya və texnoloji ilmələmə için potensial bir qaynaqdır. Əhali artımı söylədiyimiz kimi optimal səviyyəni çox üstələməsi işsizlik, bəzi sahələrdə resurs çatışmazlığı, infrastruktur xərclərinin çox yüksəlməsi kimi bir çox problemi ortaya çıxara bilər. Bu səbəblə əhali artımının balanslı və davamlı olması önəmlidir, beləcə iqtisadi artım uyğun şəkildə gərçəkləşə bilər.

**2.4 TƏHSIL VƏ SƏHIYYƏ.**

Təhsil və səhiyyə, iqtisadi inkişafda önəmli bir rola sahibdir. Bu göstəricilər bir iqtisadiyyatın uzun bir müddətdə sürətlə inkişaf etməsi və sosial rifahın artması için əsas rolu oynayır.

Təhsil:

Təhsil bir xalqın insan qaynaqlarının inkişaf etdirmək, bilgi və bacarığı artırmaq , yenilikləri təşviq etmək və iqtisadi artımı dəstəkləmək için kirtik bir rola sahibdir. Yaxşı bir təhsil sistemi ölkənin rəqabət gücünü artıraraq insanların iş həyatındakı məhsuldarlığı yanı sıra bəşəri sərmayənin formalaşmasında çox həyati bir rola sahibdir. Bundan əlavə, təhsil gəlir bərabərsizliyinin azaldılması, yoxsulluqla mübarizə və sosial inkişafın təşviqi kimi sosial məqsədlərə nail olmaqda mühüm alət hesab olunur. Təhsil göstəricilərinə məktəbdə təhsil səviyyəsi, savadlı əhalinin nisbəti və təhsil xərclərinin faizi kimi amillər daxildir. Yaxşı təhsil sistemi gənc nəsilləri yetişdirir və onları gələcək liderlik rollarını öz üzərinə götürməyə hazırlayır və bilik iqtisadiyyatına keçidi asanlaşdırır.

Səhiyyə:

Səhiyyə cəmiyyətin insan kapitalını qorumaq, səhiyyə xidmətinə çıxışı təmin etmək və cəmiyyətin ümumi rifahını yaxşılaşdırmaq üçün həyati əhəmiyyət kəsb edir. Səhiyyə xidmətləri xəstəliklərin müalicəsi, sağlam həyat tərzinin təbliği, peyvəndlər və digər profilaktik tədbirlər vasitəsilə əhalinin sağlamlığını qoruyur. Sağlamlıq göstəricilərinə gözlənilən ömür uzunluğu, doğum əmsalları, uşaq ölümləri, səhiyyə xərclərinin faizi kimi amillər daxildir. Yaxşı səhiyyə sistemi insanların iş qüvvəsində iştirakını artırır, məhsuldarlığı artırır və sağlam əhali iqtisadiyyatın ümumi rifahına töhfə verir.

Təhsil və səhiyyə, bir ölkənin insan sərmayəsi, potensialını formalaşdıraraq iqtisadi artım ilə sosial inkişaf arasında əlaqəni gücləndirir. Bu göstəricilərin effektiv bir şəkildə idarə edilməsi və

inkişafı, bir ölkənin uzun müddətli davamlı iqtisadi inkişafının davam etdirilə bilməsinə böyük töhvə verə bilər.

## 3. İQTISADI INKIŞAF STRATEGIYALARI.

İqtisadi inkişaf strategiyası ölkənin iqtisadi artım və inkişaf məqsədlərini müəyyən etmək, bu məqsədlərə nail olmaq üçün yol xəritəsini çəkmək və siyasət qərarlarını formalaşdırmaq üçün hazırlanmış hərtərəfli plan və ya strateji sənəddir. Bu strategiya ölkənin iqtisadi potensialının maksimum dərəcədə artırılması, əmək məhsuldarlığının artırılması, rəqabət qabiliyyətinin artırılması, yoxsulluğun azaldılması, davamlı inkişafın təşviqi və sosial rifahın yüksəldilməsi kimi məqsədlərə nail olmaq məqsədi daşıyır. Bu iqtisadi inkişaf strategiyaları ümumilikdə çox vaxt 3 ana strategiya olaraq qruplaşdırılır və həmin inkişaf strategiyaları isə aşağıdakılardır.

- İdxal əvəzləməsi ( Daxilə iqtiqamətli sənayeləşmə)
- İxrac əvəzləməsi ( Xaricə iqtiqamətli sənayeləşmə)
- Qarışıq strategiya

### 3.1 İDXAL ƏVƏZLƏMƏSI.

Bu strategiya ölkənin xarici ticarət balansını yaxşılaşdırmaq, iqtisadi müstəqilliyini artırmaq və yerli sənayeləri qorumaq və ya inkişaf etdirmək məqsədi daşıyır. İdxal əvəzinə yerli istehsalın təşviqi yerli biznesi dəstəkləməklə və onların rəqabət qabiliyyətini artırmaqla yerli iqtisadiyyatı gücləndirə bilər. Bu, işçi qüvvəsini artıra və yerli sənayenin artımını stimullaşdıra bilər. İdxal əvəzinə yerli istehsal sənayeləşməni təşviq edə və yerli sənayenin inkişafına imkan verə bilər. Bu strategiya yerli istehsal gücünü artırmaqla texnologiya transferini artıra və iqtisadi inkişafı sürətləndirə bilər. İdxal əvəzinə yerli istehsal xaricdən asılılığı azalda və ölkənin xarici ticarət balansını yaxşılaşdıra bilər. Bu, ölkənin iqtisadi dayanıqlığını artıra və onu xarici ticarət dalğalanmalarına daha davamlı edə bilər. İdxal əvəzinə yerli istehsal strategiyasının uğurlu olması üçün müvafiq sənaye siyasətinin həyata keçirilməsi, infrastruktur investisiyalarının dəstəklənməsi, texnologiyanın inkişafının təşviq edilməsi və rəqabətli biznes mühitinin təmin edilməsi lazımdır. Lakin bu strategiyanın həddindən artıq təcrid siyasətləri ilə həyata keçirilməsi beynəlxalq rəqabət qabiliyyətini zəiflədə və uzunmüddətli perspektivdə iqtisadi artıma mane ola bilər.

### 3.2 İXRAC ƏVƏZLƏMƏSI.

Bu strategiya ölkənin beynəlxalq ticarətdə rəqabət qabiliyyətini artırmaq, xarici ticarət balansını yaxşılaşdırmaq və iqtisadi artımı stimullaşdırmaq məqsədi daşıyır. Bu üstünlüklər çox vaxt ölkənin təbii ehtiyatlarına, insan resurslarına, texnoloji imkanlarına, coğrafi mövqeyinə və ya digər amillərə əsaslana bilər. Bu strategiya bir ölkənin xarici ticarətdə daha rəqabətli olmasına kömək edə bilər və onun xarici ticarət balansına müsbət təsir göstərə bilər. Ölkənin rəqabət üstünlüklərinin müəyyən edilməsi hansı sektorların və ya sənayelərin xaricdən inkişaf etdirilməli olduğunu müəyyən etməyə kömək edir. Bu, ölkənin mövcud resursları və imkanları nəzərə alınmaqla həyata keçirilir. Müəyyən sektorları və ya sənayeləri rəqabət üstünlüklərinə əsasən seçmək vacibdir. Bu sektorlar çox vaxt ölkənin təbii ehtiyatlarına, texnoloji imkanlarına və ya digər üstünlüklərinə arxalanır.

İxrac əvəzləməsi strategiyasında yuxarıda qeyd etdiyimiz avantajların formalaşmasında ən önəmli siyasət valyuta siyasətidir. İxrac yönümlü valyuta siyasəti, mərkəzi bankların valyuta dəyəri ilə oynaması və onun bazardakı dəyişikliklərə cavab verməsinə imkan verir. Bu, ölkələrin maliyyə stabilliyini və iqtisadiyyatlarının rekord sabitliyini qoruyan daha sərbəst bir rejimə səbəb ola bilər. Bununla birlikdə, bu siyasət rejimi valyuta dəyərindəki kəskin dəyişikliklər və istiqrazsızlığın riskini də artıra bilir. Bu nəticədə, ixrac yönümlü valyuta siyasəti ölçüsü müvafiq iqtisadi və siyasi məqsədlərə və dəhlizdə olan iqtisadi və siyasi duruma bağlı olaraq seçilir və tənzim olunur.

Seçilmiş strateji sektorlar üçün siyasətin həyata keçirilməsi bu sektorların inkişafını təşviq etmək üçün vacibdir. Bu siyasətlərə təşviqlər, vergi endirimləri, infrastruktur investisiyaları və ticarət siyasətlərinin tənzimlənməsi daxil ola bilər. İxrac strategiyasının uğurlu olması üçün beynəlxalq bazarlara çıxış vacibdir. Buna ticarət müqavilələri, xarici ticarət maneələrinin aradan qaldırılması və marketinq şəbəkələrinin inkişafı ilə nail olmaq olar.

### 3.3 QARIŞIQ STRATEGIYA.

Qarışıq iqtisadi inkişaf strategiyası ölkənin iqtisadi inkişafını təşviq etmək üçün müxtəlif yanaşmaları və siyasətləri birləşdirən yanaşmaya aiddir. Bu strategiya həm azad bazar mexanizmlərini, həm də hökumətin müdaxiləsini əhatə edə və iqtisadi artımın təşviqi, yoxsulluğun azaldılması, gəlir

bərabərsizliyinin düzəldilməsi və davamlı inkişafa nail olmaq kimi müxtəlif məqsədlərə diqqət yetirə bilər. Qarışıq iqtisadi inkişaf strategiyası azad bazar iqtisadiyyatı və dövlət müdaxiləsinin üstünlüklərini birləşdirir. Bu strategiya azad bazar iqtisadiyyatının çevikliyi və səmərəliliyi ilə dövlətin tənzimləyici rolunun və sosial rifah siyasətinin gətirdiyi qoruyucu tədbirlərin birləşməsində istifadə edir. Qarışıq iqtisadi inkişaf strategiyası özəl sektor investisiyalarını təşviq etmək üçün müxtəlif stimullar və dəstəklər təqdim edir. Bu təşviqlər vergilərin azaldılması, kredit imkanları, infrastruktur investisiyaları və sənaye zonalarında əlverişli şərtlər kimi müxtəlif formalarda ola bilər. İnfrastruktur iqtisadiyyatın sağlam inkişafı üçün əsasdır. Qarışıq iqtisadi inkişaf strategiyası nəqliyyat, enerji, telekommunikasiya və su ehtiyatları kimi infrastruktura investisiyaları təşviq edir.

Qarışıq iqtisadi inkişaf strategiyası ölkənin iqtisadi inkişafını təşviq etmək və sosial rifahı yüksəltmək üçün çox şaxəli və balanslaşdırılmış yanaşmanı qəbul edir. Bu strategiya həm azad bazar iqtisadiyyatının dinamizminin, həm də dövlətin tənzimləyici və sosial rifah rollarının balanslaşdırılmış birləşməsini təmin etmək məqsədi daşıyır.

## 4 AZƏRBAYCANDA İZLƏNİLƏN İQTISADİ İNKİŞAF STRATEGİYALARI.

AZƏRBAYCAN dövləti 1991-ci il 18 Oktyabrı tarixi ilə müstəqilliyini geri qazanmışdır. Müstəqilliyin ilk Azərbaycan için çox sancılı və stressli olmuşdur. Daxili və xarici təsirlərdən istiqrar pozulmuş buda ölkə iqtisadiyyatında özünü büruzə vermişdir. Yüksək hiper inflyasiya iqtisadiyyatda sabitliyi pozmuş ilk illərdə tətbiq olunan iqtisadi siyasətlərin nəticələrinin uğursuz və yaxud istənilən səviyyədə olmamasına səbəb olmuşdur. Fəqət irəliləyən illərdə AZƏRBAYCAN Respublikasının prezidenti Heydər Əliyevin səyləri ilə əsrin müqaviləsi imzalanmış və bu sayədə ölkədə iqtisadi sabitliyi yaratmaq mümkün olmuşdur.

Mülkiyyətin dövlət inhisarında olması və buna görə də rəqabət mühitinin olmaması, qiymətlərin azad bazara buraxılması inflyasiyanın durmadan artmasına, nəticədə insanların həyat səviyyəsinin kəskin şəkildə aşağı düşməsinə səbəb olub. Həddindən artıq səpələnmiş büdcə, pul-kredit, xarici iqtisadi siyasətdə yol verilən səhvlər, müəssisələrin maliyyə-maliyyə vəziyyəti qaçılmaz şəkildə pisləşmiş və bütün maliyyə-bank sisteminin dağılması ilə nəticələnmişdir. Keçmiş SSRİ ilə iqtisadi əlaqələrin kəsilməsi və bu bazarlarda bazarların itirilməsi vəziyyəti daha da iqtisadi böhrana sürüklədi (Düğer & Murad, 1999).

2000-ci illərin əvvəllərində AZƏRBAYCAN 90-cı illərdəki iqtisadi inkişafda qarşısında duran bir çox problem həll etmiş artıq bir çox sahədə davamlı olaraq inkişafı davam etdirməyi bacarmışdır. Bu inkişafın daimi olaraq davam etdirilməsini qorunması, rifaha xalqın əlçatanlığının yaxşılaşdırılması, digər istehsal sahələrinin inkişafı için 2004-cü ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən regionların sosial iqtisadi inkişafı üzrə dövlət proqramı qəbul edilmişdir. Proqram icrası dövründə 27 mindən artıq yeni müəssisə yaradılmış, 71.5 faizi daimi olmaqla 766 min yeni iş yeri açılmışdır. Bu inkişaf yolunda digər önəm göstərilən sahə kənd təsərrüfatı olmuşdur. Kənd təsərrüfatını inkişaf etdirmək için dövlət proqramı yaradılmış bir çox kənd təsərrüfatı sahəsində istehsalçılara, vergi, subsidiya, ixrac asanlığı, gübrə yardımı, yeni texnologiya kənd təsərrüfatı məhsullarını əldə etməyi asandlaşdırılmışdır. Ölkə iqtisadiyyatının şaxələndirilməsi, bir çox ixrac məhsuluna rəqabət şansının yaradılması fokuslanılmışdı. İdxal əvəzləməsi strategiyası mənimsənilərək ölkə daxilində istehsalçıların inkişafı etdirilərək ixracın artırılmasıda bu strategiyalar arasındadır. Bu kimi bir çox sahənin inkişafının davam etdirilməsindən neft sektorunun payı çox böyük olmuşdur. Bir nöqtədən digər sahələrin daha çox inkişaf etdirilmə istəyi ölkə iqtisadiyyatında neft sektorunun payını azaldılması istəyi ilə ötüşmüşdür. Ölkə iqtisadiyyatının neftdən asılılıq payını azaldılaraq ölkə iqtisadiyyatının xarici dəyişkənlərdən təsirin azaltmaq, xammal ixrac edən ölkədən əlavə dəyərli məhsul istehsal edən ölkəyə çevrilmək olmuşdur.

Sosial-iqtisadi siyasət sahəsində nizamlayıcı tədbirlərdən olan “həyat səviyyəsi” və “həyat keyfiyyəti” dayanıqlı iqtisadi inkişaf modelinin əsas aspektlərindəndir. Qarşılıqlı surətdə bir-birini tamamlayan “həyat səviyyəsi” və “həyat keyfiyyəti” anlayışları yalnız istehlakın artırılmasını deyil, eyni zamanda insan inkişafının tərəqqisini nəzərdə tutur. Dayanıqlı inkişaf indiki və gələcək nəsillər üçün dayanıqlı insan inkişafı, yaxşı keyfiyyətdə həyat səviyyəsinin təmin edilməsidir. Modernləşən və müasirləşən Azərbaycanda neft strategiyasının səmərəli nəticələrində əldə olunan gəlirlərin insanların sosial problemlərinin həllinə, xüsusən əhalinin aztəminatlı təbəqələrinin sosial müdafiəsinin gücləndirilməsinə, sosial infrastrukturun müasirləşməsinə yönəldilməsi sosial müdafiə sisteminin inkişafına səbəb olmuşdur. (Hüseyinova, 2017).

1995-2003-cü illər ərzində ölkəmizdə böyük sosial-iqtisadi dəyişikliklər müşahidə olunmağa başladı. Beləliklə də, ulu öndər Heydər Əliyev həm nəzəri səviyyədə, həm də praktikada norma və dəyərlər məcmusunu həyata keçirmiş, bu məcmu həyat qabiliyyətli demokratiya modelinə çevrilmişdir. Heydər Əliyevin prezident olduğu dövrdə ölkənin müasir inkişafı üçün möhkəm təməl qoyulmuş, Azərbaycanın qərarlaşmış dövlət kimi qəbul olunması təmin edilmiş, gələcəkdə Azərbaycanın müasir dünyaya inteqrasiyası üçün şərait yaradılmışdır (Məmmədov, 2018).

Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 11 fevral tarixli fərmanı ilə "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramı (2004-2008-ci illər)" qəbul edildi. Bu proqramın həyata keçirilməsi bölgələrin inkişafına, o cümlədən infrastruktur sahələrin genişlənməsinə, sosial obyektlərin və yeni iş yerlərinin yaradılmasına, əhalinin həyat səviyyəsinin daha da yaxşılaşdırılmasına təkan verdi. Proqramın icrası dövründə 27 mindən artıq yeni müəssisə yaradılmış, 71,5 faizi daimi olmaqla 766 min yeni iş yeri açılmışdır. Yeni müəssisələrin 40 faizə qədəri, yeni iş yerlərinin 80 faizi regionlarda yaradıldı. Son illər Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan iqtisadiyyatının bütün sahələrində sıçrayışlı inkişaf əldə edilmiş və bu inkişaf istehsalın və investisiyaların həcminin artmasına, büdcə imkanlarının genişlənməsinə, əhalinin maddi rifah halının yaxşılaşmasına əhəmiyyətli təsir göstərmişdir. Maliyyə imkanlarının artmasının nəticəsi olaraq dövlət büdcəsinin xərcləri 2000-ci ildəki 763,8 milyon manatdan 2009-cu ildə 12,4 milyard manata qədər artmışdır (MÖVSÜMOV, 2010).

Dövlət Neft Fonunun yaradılması qeyri-neft sektoruna verilən önəmi artıraraq davam etmişdir. 2000-ci illərdən sonra iqtisadiyyatın çeşidləndirilməsi siyasəti, qeyri-neft sektorunda bir çox yeni sahənin inkişafına səbəb olmuşdur. 2000-ci illərin əvvəllərində, ÜDM-də (Ümumi Daxili Məhsul) 16% olan kənd təsərrüfatı payı azalmış və 2013-cü ildə 5.3%-ə qədər enənmişdir. Kənd təsərrüfatının azalmasına baxmayaraq, 2013-cü ildə kənd təsərrüfatı istehsalı 5244.6 milyon manat olmuşdur ki, bu, əvvəlki illərə nisbətən daha çoxdur (2000-ci ildə 1112.4 milyon manat). Bu göstəricilər, yeni istehsal sahələrinin artması və ÜDM-in komponentlərinin çeşidləndirilməsinin irəliləyişini göstərir.

Ümumilikdə müstəqilliyinin bərpası sonrası izlənilən iqtisadi inkişaf strategiyaları Azərbaycan iqtisadiyyatında geniş bir məcrada müsbət dəyərlər formalaşdırmış, ölkə iqtisadi olaraq qüvətlənmiş, əhalnin rifahı yüksəlmiş, dünyada tanınrlığı artmış, xüsusilədə Ermənistanla olan münaqişədə itirilən torpaqlar geri alınmışdır

**4.1 AZƏRBAYCANIN 2030-CU ILƏ KIMI IQTISADI INKIŞAF YOLU.**

AZƏRBAYCAN dövlətinin 2021-ci ildə sosial və iqtisadi inkişafın davamlılığını davam etdirilməsi üçün AZƏRBAYCAN Respublikasının Prezidenti İlham Əliyev tərəfindən sərəncam təsdiq edilmişdir. Bu sərəncamda AZƏRBAYCANIN iqtisadi inkişafında tətbiq ediləcək siyasətlə və məqsədlər əks etdirilmişdir. Milli sosial rifahın səviyyəsinin daim yüksəldilməsi məqsədinə uyğun olaraq şəffaf, ədalətli, inteqrativ və xüsusilə özəl sektorun rəhbərlik etdiyi iqtisadi artımın sürətləndirməsi, əhalinin boşaldılmış rayonlara qayıtmasının təmin edilməsi AZƏRBAYCANIN yeni inkişaf oxunun ideoloji əsasını təşkil edir. Ölkənin uzunmüddətli, davamlı və sürətli inkişafı üçün cəmiyyətin, biznesin və dövlətin əməkdaşlığının uğurlu inkişafı təmin ediləcəkdir. Bazar yönümlü islahatlar yolu ilə dövlətin iqtisadiyyatdakı rolunun səmərəli və məsuliyyətlə idarə edilməsi, özəl mülkiyyət institutlarının gücləndirilməsi, biznes üçün əlverişli dövlət idarəçiliyi, yerli məhsulların xarici bazarlara axınının artırılması üçün ticarət rejimlərinin daha da liberallaşdırılması əsas elementlər olacaqdır. iqtisadi yüksəliş. Ölkədə özəl müəssisələrin yaradıcı və innovativ əsaslara söykənərək inkişafı iqtisadi resursların daha yüksək əlavə dəyər yaradan sahələrə yönəldilməsini təmin edəcək.

Bu məqsədlərə nail olmaq möhkəm makroiqtisadi sabitliyə xidmət edən effektiv makroiqtisadi siyasət çərçivəsinin yaradılmasını, iqtisadi inkişafın orta və uzunmüddətli “hərəkətverici qüvvələrinin” gücləndirilməsini tələb edir – insan kapitalının modernləşdirilməsini, rəqəmsal iqtisadiyyatın genişləndirilməsini və tam inkişafını tələb edir. iqtisadi müstəqilliyin əldə edilməsi.

Azərbaycanın 2030-cu ilə kimi beş Milli Prioritet reallaşdırılmalıdır onlar aşağıdakılardır.

- Dayanıqlı artan rəqabət qabiliyyətli iqtisadiyyat.
- Dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət.
- Rəqabətli insan kapitalı və müasir innovasiyaları məkanı.
- İşğaldan azad olunmuş ərazilərə böyük qayıdış.
- Təmiz ətraf mühit və “yaşıl artım” ölkəsi.

## NƏTICƏ

Müstəqilliyin ilk illərində bəzi sahələrdə inkişaf siyasətini tətbiqində fəal rol oynayan dövlət qurumları lazımı effektdə siyasətin icrasını başara bilməməsiə səbəb olmuşdur. Qurumlardakı korrupsiya halları xüsusilədə müstəqilliyin ilk illərində iqtisadi inkişaf yolu izləyən ölkənin istənilən nəticələri əldə edə bilməməsinə səbəb olmuşdur. Dövlət qurumlarının bəzi sahələrdə fəal rol oynaması həmin sahədə özəl sektorun inkişafı qısıtlamış, yaxud izlənilən siyasətlərin bəziləri müəyyən sahələrdə özəl sektora mənfi təsir göstərmişdir. İlk mərhələdə idxal əvəzləməsi siyasətinə daha çox üstünlük verilmişdir fəqət istənilən nəticələr istənilən səviyyədə alınmamışdır. Bunun səbəbi kimidə strategiyanın mənfi yanlarının olması və tətbiqi zamanı edilən yanlış siyasətlər istənilən nəticələrin formalaşmasını çətinləşdirmişdir.

Tətbiq oluna valyuta siyasəti ixrac potensialı olan yüngül sənaye və kənd təsərrüfatı mallarının rəqabət qabiliyyətini azaldaraq ixracını çətinləşdirmişdir. Bu siyasəti izləyən Azərbaycan dövlətində kənd sənayesinin və istehsalının payının azalmasına təsir edən səbəblərdən biri kimi qəbul olunur. Valyuta siyasətinin bir digər mənfi hal yaratması sənaye və digər sahələrin tələb etdiyi yüksək əlavə dəyər malik olan məhsulların ixracı dövlətin xarici valyuta ehtiyatlarının azalmasına, büdcə kəsirlərinin formalaşması kimi bir çox səbəbə səbəb olmuşdur.

1990-cı illərin ilk vaxtları inkişaf siyasətində dövlətin birbaşa olaraq aktiv olaraq rol alması bəzi sahələrin həddindən artıq irəliləməsinə və geriləməsinə səbəb olaraq sahələr arası balans fərqinin artmasına səbəb olmuşdur.

Bu kimi problemlərə baxmayaraq Azərbaycan dövləti müəyyən sahələrdə izlədiyi inkişaf strategiyalarını gətirisini nəzər alaraq müəyyən siyasət fərqliliklərinə yönəlmiş yaxud fərqli tətbiq yolları izləmişdir. Ölkənin də ümumilikdə baxıldıqda bəzi sahələrdə istədiyi nəticəni almasına baxmayaraq yekun olaraq bir çox sahədə inkişaf etdiyi gözlənmişdir. Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin 90-cı illərin ikinci yarısında izlədiyi inkişaf strategiyası öz bəhrəsini göstərmişdir.

İlk zamanlar izlənilən inkişaf strategiyalarının bəziləri bu günkü dövrə kimi davam etdirilmiş, bəzilərində isə izlənilən strategiya tətbiqində və yaxud özü dəyişikliyə məruz qalmışdır. Azərbaycanın izlədiyi inkişaf strategiyaları arasında isə nəticə etibarı ilə öz böyümə göstəricisi ilə seçilən sahə Aqrar sektor olmuşdur. Bənzər inkişaf strategiyaları izləyən post sovyet ölkələri ilə müqayisədə aqrar sektor çox böyük iləriləmə göstərmişdir. Qeyri neft sektorunun inkişafında izlənilən siyasətlər isə ildən ilə UDM-də neft sektorunun payının azalaraq qeyri neft sektorunun payının artması müşahidə olunmuşdur. Digər bir iqtisadi göstəricilərdən olan infiliyasiya izlənilən siyasət nəticəsində müəyyən artım tempi göstərmiş iqtisadiyyatda sabitlik qorunmuşdur. Xüsusilə də bu onu göstərmişdir ki, tətbiq olunan strategiyaların nəticələri analiz edilərək gətirisi gözə alınıb müəyyən sahələrdə siyasət dəyişiminə yaxud eyni siyasətin davamına qərar alınmışdır. İzlənilən strategiyaların müəyinləşməsində daha çox sektorların inkişafından kənarı həmdə ölkənin ümumilikdə izlədiyi siyasi və sosial mühitidə nəzərə alınmaqdadır. Bütün olaraq buda müsbət bir təsir formalaşdıraraq iqtisadiyyatın inkişafı və şaxələnməsi ilə nəticələnib inkişafı davam etdirməyə yarıyacaq resursları formalaşdırır.

## ƏDƏBIYYAT SIYAHISI

Düğer, H., & Murad, İ. (1999). EKONOMİK KALKINMA STRATEJİLERİ VE BAZI ÜLKE DENEYİMLERİ. pp. 35-36.

Hüseyinova, Z. (2017). İQTİSADİ İNKİŞAF MODELİNİN ƏSAS STRATEJİ MƏQSƏDLƏRİ. pp. 26-27.

Mahmut, A. (1980). ÖNEMİ, EGİTİMİN KALKINMAD YERİ VE ÖNEMİ. s. 3-4.

Məmmədov, R. (2018). Azərbaycanın inkişaf strategiyasında Heydər Əliyev irsi.

MÖVSÜMOV, Ş. (2010). Azərbaycanın inkişaf strategiyası: modernləşdirmə xətti.

# AZƏRBAYCANDA ƏRZAQ TƏHLÜKƏSİZLİYİ VƏ QİDA TƏMİNATININ TƏNZİMLƏNMƏSİ

**ƏHMƏD ƏHMƏDOV**

Bakı Mühəndislik Universiteti
İqtisadiyyat və İdarəetmə/ Maliyyə və mühasibat *eehmedov21@std.beu.edu.az*
BAKI, AZƏRBAYCAN

**XÜLASƏ**

Ərzaq probleminin mövcudluğu insanın yarandığı gündən başlamış və öz xüsusiyyət və miqyaslarını bəşəriyyətin inkişafından asılı olaraq dəyişmişdir. Bunun nəticəsidir ki, artıq ötən əsrin ikinci yarısından etibarən ümumbəşəri problem kimi qəbul olunmuşdur. Ərzaq təhlükəsizliyi ölkənin iqtisadi və milli təhlükəsizliyinin ən əsas hissəsidir. Əhalinin ərzaq məhsulları ilə təmin olunması dövlət üçün həlli vacib olan sosial-iqtisadi problemlərdən birisidir. Qeyd etmək istərdim ki, ərzaq təhlükəsizliyi dövlət siyasətinin prioritet istiqamətlərindən ən əsasıdır . Bu problemin həlli milli, iqtisadi, sosial, demoqrafik və ekoloji faktorların ən geniş spektrini əhatə edir. Məhz bu səbəbdən də dövlət səviyyəsində sosial-iqtisadi sistem ərzaq təhlükəsizliyi ilə sıx bağlıdır. Elə bu baxımdan da ərzaq təhlükəsizliyinin təmini daxili resursların mobilizə edilməsinə əsaslanır. Bu yanaşma milli iqtisadi islahatlar strategiyasının işlənib hazırlanması, effektiv hüquqi normaların istifadəsi, dayanıqlı inkişafı, əhalinin həyat şəraitinin yaxşılaşdırılması ilə bağlı dəyişikliklərə əsaslanmışdır.

**AÇAR SÖZLƏR: KƏND TƏSƏRRÜFATI, ƏRZAQ TƏHLÜKƏSİZLİYİ, QİDA TƏMİNATI, İQTİSADİ İSLAHAT LAR.**

SUMMARY

The existence of the food problem has started since the beginning of man and has changed its characteristics and dimensions depending on the development of mankind. As a result, it has been recognized as a universal problem since the second half of the last century. Food security is the most important part of the country's economic and national security. Providing the population with food products is one of the socio-economic problems that are important for the state to solve. I would like to note that food security is one of the most important priorities of state policy. The solution of this problem includes the widest range of national, economic, social, demographic and ecological factors. It is for this reason that the socio-economic system at the state level is closely related to food security. From this point of view, the provision of food security is based on the mobilization of internal resources. This approach is based on changes related to the development of the national economic reform strategy, the use of effective legal norms, sustainable development, and the improvement of the living conditions of the population.

**KEYWORDS: AGRICULTURE, FOOD SECURITY, FOOD SUPPLY, ECONOMIC REFORMS.**

## GİRİŞ

Ərzaq məhsulları insanlar üçün lazımi qədər istehsal olunmadığı zaman bu cəmiyyətdə həll yolunun tapılmasını gərəkdirən çarpan bir fakta - ərzaq çatışmazlığına, bu isə öz növbəsində ciddi sosial–siyasi problemə gətirib çıxarır. Ərzaq çatışmazlığı problemini yaradan səbəblərə misal olaraq təbii fəlakətləri, ölkədə baş verən iqtisadi böhranları, müharibələri, ictimai quruluşda edilmiş radikal dəyişiklikləri, ərzaq istehsalı obyektlərinin və əhalinin ölkə ərazisinə görə qeyri-proporsional yerləşməsini və s. göstərmək olar. Bütün bunları nəzərə alaraq, hazırda nəzərə çarpan ən önəmli problemlərdən biri də dövlət və eləcə də bütün bəşəriyyət üçün ərzaq və ərzaq təhlükəsizliyinin stabil şəkildə təmin olunması hesab olunur. XX əsrdə beynəlxalq ticarətin inkişafı nəticəsində ərzaq problemi bir sıra dövlətlərin digərləri üzərində siyasi təzyiq edə bilməsi üçün vasitəsiyə çevrilmişdir. Bu cür ölkələr mütəmadi olaraq digər ölkələrdəki ərzaq problemini öyrənir və eyni zamanda öz əhalisinin ərzaqla təmin olunma səviyyəsini maksimum səviyyədə saxlayaraq, öz bazar paylarını digər ölkə bazarlarında bacardıqları qədər genişləndirməyə çalışırlar ki, bu da ixracatçı ölkələrə idxalçı ölkələr ilə qarsılıqlı əlaqələr zamanı yumşaq təsir vasitələri (ixrac subsidiyaları, gömrük problemləri,

qiymət siyasəti və s.) ilə yanaşı, həmçinin sərt tədbirlərin (idxala qoyulan qadağalar, iqtisadi sabotaj embarqo və s.) tətbiqinə imkan verir. Eyni zamanda, idxalçı ölkələrin yeritdiyi xarici iqtisadi siyasətin əsasını xarici rəqabətdən daxili istehsalçı və ixracatçıların, daxili ərzaq bazarının qorunması, bununla yanaşı ərzaqla özünü yüksək səviyyədə təmin etdikdən sonra daxili bazarların idxal prosesi üçün tam formada bağlanması istiqamətində atılan addımlar təşkil edir.

TƏDQİQAT METODU

Göründüyü kimi, ərzaq təhlükəsizliyi cəmiyyət üçün ölkələrarası əlaqələr müstəvisində suverenliyin təmin olunmasının əsas şərtidir. Beləliklə, ərzaq təhlükəsizliyi dövlətin iqtisadi təhlükəsizliyin əsas vahidi olmaqla yanaşı, eləcə də ekoloji və siyasi təhlükəsizliyinin mühüm elementidir. Bütün bunlar isə milli təhlükəsizliyin tərkibində ərzaq təhlükəsizliyinin nə dərəcədə aparıcı rol oynadığını göstərir. "Ərzaq təhlükəsizliyi" anlayışının tərifində ərzaq təhlükəsizliyinin mahiyyəti daha düzgün formada öz əksini tapmışdır. Bunu da qeyd etmək lazımdır ki, "ərzaq təhlükəsizliyi" beynəlxalq bir termin kimi ilk dəfə qəbul edilməsi 1974 - cü ildə Romada taxılın qiymətinin kəskin şəkildə artması ilə bağlı ƏKTT (FAO) tərəfindən ərzaq problemlərinin həlli ilə bağlı təşkil edilən Ümumdünya Konfransına təsadüf edir. Bu anlayışın əsas mahiyyətiə bu hadisədən 20 il sonra analoji olaraq konfransda aydınlıq gətirilmişdir. ƏKTT - yə görə "ərzaq təhlükəsizliyi bütün insanların aktiv şəkildə öz sağlam həyatlarını təmin edə bilmək üçün lazımı miqdarda təhlükəsiz olan ərzaq məhsullarına iqtisadi və fiziki formada əlçatanlığının mümkün olmasıdır". Keçən əsrin sonlarından başlayaraq artıq "ərzaq təhlükəsizliyi" termini təkcə sənədlərdə deyil, elmi ədəbiyyatlarda da geniş şəkildə istifadə olunmağa başlandı. Bu ədəbiyyatları diqqətlə nəzərdən keçirsək, bu kateqoriyanın mahiyyəti barəsində hələ də vahid bir tərif olmaması qənaətinə gəlmək olar. Bu kateqoriyaya verilən məna düzgün qurulmuş strategiya və taktikanın seçilməsindən birbaşa olaraq asılıdır. Ərzaq təhlükəsizliyi ölkə iqtisadiyyatının elə bir stuasiyasını özündə xarakterizə edir ki, əhalinin fəal və sağlam yaşam tərzi keçirə bilməsi üçün ərzaq məhsullarına olan lazımi miqdarda tələbatını mövcud imkanlar hesabına ödəyə bilsin. Ərzaq təhlükəsizliyi ölkənin hər bir vətəndaşının istehlak etdiyi ərzaq səviyyəsindən bilavasitə asılı olmaqla nəinki mikro və makro, hətta qlobal səciyyə daşıyır. Ərzaq təhlükəsizliyinin mikro aspekti dedikdə hər bir ölkə fərdinin yaşamaq imkanları ilə başa düşülür. Digər tərəfdən makro aspektlər isə ölkənin ümumi inkişaf etmə səviyyəsi, qlobal aspektlər isə ölkələrarası münasibətlər və dünyada baş verən geosiyasi yeniliklərlə bilavasitə əlaqəlidir. Ümumiyyətlə, ərzaq təhlükəsizliyini 2 mərhələyə ayırmaq olar: xroniki və müvəqqəti-dövri. İlk olaraq, xroniki xarakter daşıyan ərzaq təhlükəsizliyi əsasən inkişaf etməkdə olan dünya ölkələri üçün xas hesab edilir ki, həmin proses səciyyəvi olduğu ölkələrdə aşağı inkişaf etmiş iqtisadiyyat, eyni zamanda aşağı büdcə imkanları, kənd təsərrüfatında və onunla əlaqəli başqa sahələrdə intensiv texnoloji avadanlıqların tətbiqinin geniş yayılmaması, zəif inkişaf etmiş infrastrukturun mövcudluğu, əhalinin istehlak qabiliyyətinin yüksək səviyyədə olmaması və s. bir çox faktorlarla əlaqəlidir.

Ərzaq təhlükəsizliyi ilkin olaraq hər bir ölkənin öz milli ərzaq müstəqilliyinə əsaslanır. İstənilən bir dövlətin siyasi müstəqilliyinin əldə olunması anlayışını onun ərzaq suverenliyinin təmin olunması fikri ilə bir tutmaq düzgün deyildir. Ölkənin milli ərzaq təhlükəsizliyi üzləşilə biləcək hər hansı bir fövqəladə situasiyalar zamanı dövlət öz ərazisindəki vətəndaşlarını yetəri qədər ərzaq və yeyinti məhsulları ilə tam təmin etməsi üçün digər dünya ölkələrinə müraciət etməməsi deməkdir. Bir sözlə, yaranmış tələbatı şəxsi mənbələrin hesabına qarşılamaq gücündə olur və ölkədə ərzaqla bağlı hər hansı böhranın yaşanmasının qarşısını alır. Ərzaq təhlükəsizliyinin və ölkənin milli ərzaq suverenliyinin təmin olunmasını şərtləndirən bir sıra amillər mövcuddur ki, bunlara aşağıda göstərilənlər aiddir:

- ölkədə ərzaq və qida məhsullarının istehsal olunma səviyyəsi;
- yeyinti məhsullarının istehsalının iqtisadi aspektdən sərfəliliyi;
- yeyinti məhsullarının qiymətliliyinin səviyyəsi;
- ölkə əhalisinin istehlak qabiliyyəti;
- ölkədə orta aylıq əməkhaqqının səviyyəsi;
- dövlət tərəfindən əhalinin aztəminatlı təbəqələrinə aid şəxslərə edilən güzəstlər və verilən müavinətlər;
- dövlətin mövcud ərzaq resursları.

Ərzaq təhlükəsizliyi probleminin geniş miqyasda yayılması xüsusilə qloballaşma fonunda özünü daha qabarıq büruzə verir. Yəni, ərzaq təhlükəsizliyinin təmin edilməsi ölkə əhalisinin istehlak qabiliyyəti və emalın artırılması ilə qarşılıqlı şəkildə əlaqəli olduğundan bu proses dövlət büdcəsindən,

ölkənin maliyyə imkanlarından da asılı hala düşür. Bu səbəbdəndir ki, son dövrlərdə bu vacib problemin həll edilməində beynəlxalq təşkilatlar - Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB), Beynəlxalq Beynəlxalq Valyuta Fondu (BVF), Yenidənqurma və İnkişaf Bankı (BYİB) və s. təşkilatlar da yaxından iştirak etmişdir. Beynəlxalq ərzaq təhlükəsizliyi sistemi, bunlarla yanaşı özündə ərzaq çatısmazlığ problemi yaşayan ölkələrə yardım əlinin uzadılmasını və iqtisadi cəhətdən zəif inkişaf etmiş ölkələrə öz milli ərzaq təhlükəsizliyi sisteminin yaradılmasına iqtisadi, təşkilati və texniki yardımlar göstərilməsini özündə ehtiva etdirir.

Taxıl ehtiyatlarının yaradılması bu sistemin mühüm tərkib elementi olması ilə yanaşı, yarana biləcək ərzaq çatısmazlığının həll olunmasında mühüm rol oynayır və bazarlarda dənli bitki məhsullarının qiymətlərinin dəyişməz saxlanılması üçün önəmli vasitədir.

Təbiidir ki, bu şəraitdə taxıla qarşı göstərilən tələbat tələb və təklifin səviyyəsindən asılı şəkildə formalaşan beynəlxalq qiymətlər bazarda rəhbər götürülür. Bu baxımdan bazarda aşağı qiymət səviyyəsi resursların toplanmasının indikatoru, yüksək qiymət səviyyəsi isə resurlardan istifadənin indikatoru funksiyasını həyata keçirir. Beləliklə, beynəlxalq dərəcəli ərzaq resursunun ərsəyə gətirilməsi hesabına ərzaq bazarının stabilləşdirilməsi həm ixracatçılar, həm də idxalçılar üçün iqtisadi aspektdən uyğun ola bilər. Son dövrlərə kimi Yaponiyanın yeritdiyi aqrar siyasət nəticəsində ölkəsinin kənd təsərrüfatı istehsalçılarına göstərdiyi yüksək dərəcəli himayədar yardım buna klassik nümunə idi. Lakin 80-ci illərin birinci yarısından Yaponiyada da radikal dəyişikliklərə rast gəlindi. Xüsusilə də aztorpaqlılıq və kiçik kəndli təsərrüfatı şəraitində olan bir ölkə digər dünya ölkələrinə görə özünü ərzaqla təminetmə problemini aradan qaldırmaq və sağlam rəqabət qabiliyyətli bir aqrar sahənin yaradılması məqsədilə daxildə dəyişməz tələbatdan istifadə edən modelə keçid etdi ki, bu iqtisadi model də ərzaq məhsullarının istehsalının beynəlxalq diversifikasiya adlanır. Ölkə korporativ müəssisələrin təşkil olunması bir neçə xarici ölkələrin ("üçüncü dünya ölkələrinin") aqrar bölməsinə geniş miqsaylı investisiyaların və müaasir texnoloji avadanlıqların tətbiqi vasitəsilə dünya bazarının qeyri-stabil konyukturu özünün ərzağa qarşı olan həssaslığını bəzi göstəricilərə görə kifayət qədər azaldıb, zəmanətli şəkildə özünü lazımi dərəcədə ərzaqla təminetmə səviyyəsinə çatmağa nail oldu. Qərbi Avropada, ABŞ-da, Kanadada, Yaponiyada və Çində kənd təsərrüfatının uğurlu hesab olunan irəliləyişi təkcə bazar əlaqələrinin tətbiq olunması ilə yox, eləcə də geniş həcmdə təkrar istehsal prosesinə kənardan olan təsir vasitələrinin artması hesabına bazarın özünü tənzimləyə bilməsi mexanizminin fəaliyyətinə məhdudiyyətlər qoyulması yolu ilə əldə olunmuşdur. Kənd təsərrüfatına kredit-vergi siyasəti, dotasiyalar, kvotalar, qiymət yolu ilə dövlət yardım proqramları ölkənin aqrar sahəsinin inkişafında vacib rol oynayır. Bu zaman kənd ərazilərində dövlət tərəfindən göstərilən yardımlar da önəmli hesab olunur. Vurğulamaq lazımdır ki, çağdaş dövrdə ölkələrarası iqtisadi əlaqələr sisteminin qloballaşması ərzaq çatışmazlığının artıq sərhəd tanımayaraq bütün dünya ölkələrində cəmiyyətin mühüm probleminə çevrilməsi ilə nəticələnmişdir. Bütün bunları nəzərə alan BMT yanında Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) beynəlxalq dərəcədə ümumiləşdirmələr aparmışdır ki, bu da bir çox dövlətlərin iqtisadi aspektdən təcrübəsində qida təhlükəsizliyi və onun sərhədlərinin təhlil olunması hesabına baş vermişdir. Beynəlxalq Ərzaq Təşkilatı nümayəndəlirinin gəldiyi nətcəyə görə dövlətin ərzaq təhlükəsizliyinin baş meyarları kimi ölkə ərazisində taxıl ehtiyatlarının ümumi həcmi, qarşıdakı məhsul yığımına kimi resursların saxlanması və adambaşına düşən taxıl istehsalı götürülür. Beynəlxalq təcrübədə həmin ölkənin ehtiyatı təhlükəsiz qəbul olunur ki, taxıl ehtiyatı illik satınalmaların 17-20 %-ni təşkil etsin. Başqa bir sözlə desək, taxıl ehtiyatı illik istehlakdan əlavə olaraq ölkə əhalisinin növbəti 2 ay ərzində taxıla olan labüd tələbatını ödəmək gücündə olsun.

Azərbaycan Respublikasının ərzaq təhlükəsizliyinin təmin olunması məsələləri daxili və xarici təsirlərdən asılı olmayaraq aşağı verilənlərdən ibarətdir:

- ölkə əhalisinin hər bir vətəndaşının əvvəlcədən müəyyən olunmuş istehlak normasını əsas götürərək fəal, sağlam həyat tərzi sürməsi üçün lazımi keyfiyyətdə və təhlükəsiz olan qida məhsulları ilə həm fiziki, həm də iqtisadi cəhətdən təmin olunmasına nail olunması və qida ehtiyatlarının standartlara uyğun şəraitdə saxlanılmasının təmin edilməsi;
- əhalinin ərzaq məhsulları ilə tam təmin olumasına əsasən ölkə daxilində istehsal olunan ərzaq məhsulları ilə nail olunması;
- istehlak edilən qida məhsullarının tam təhlükəsizliyinə və yüksək keyfiyyətinə nail olunması; - baş verən təbii fəlakətlər və ya digər fövqəladə vəziyyətlərdə vətəndaşların qida məhsulları ilə

mütəmadi olaraq təmin olunması hesabına yarana biləcək hər hansı neqativ halların azaldılması və insan sağlamlığı üçün təhlükəsiz hesab olunan qida məhsullarının istehsal olunmasının və ərzaq təhlükəsizliyində endogen və ekzogen amillərin aradan götürülməsinin təmin edilməsi.

Azərbaycanda kənd təsərrüfatı sahəsinin istehsalçıları böyük ölçüdə öz məhsullarını, bəzən isə xarici ölkələrdən import edilmiş kənd təsərrüfatı mallarının istehsalı ilə məşğul olurlar. Belə olan halda, "istehsal edilmiş məhsul" ifadəsi iki məna daşıyır: birinci halda kənd təsərrüfatı sahəsi istehsalçıları üzrə kənd təsərrüfatı mallarının emalı; ikinci halda isə istehsal müəssisələri, ev təsərrüfatlarında kənd təsərrüfatı mallarının istehsalıı və eləcə də təkrar istehsaldan əldə edilən ərzaq mallarının istehsalı başa düşülür. Hazırda ölkəmizdə dövlət ərzaq resurslarından danışdıqda təkcə Dövlət Taxıl Fondu barəsində danışmaq mümkündür. Əslində olan isə istehlak səbətində əsas yer tutan bir sıra məhsulların ehtiyat mənbəyi yaradılmalıdır. Bütün bunların nəticəsi olaraq, ərzaq bazarı özünü süni qiymət artımından qoruya bilər.

Azərbaycan Respublikasında kənd təsərrüfatı sahəsinin müxtəlif bitkiçilik məhsulları üzrə statistik rəqəmləri diaqramlarda əks olunmuşdur:




**Şəkil 1. Müxtəlif illərdədənli taxıl məhsulları üzrə ərzaq balansları (min ton)**




**Şəkil 2. Fərqli illərdə dənli-paxlalı bitkilər üzrə ərzaq balansları (min ton)**




**Şəkil 3. Fərqli illərdə kartof istehsalı üzrə ərzaq balansları (min ton)**




**Şəkil 4. Fərqli illərdə tərəvəz və bostan bitkiləri istehsalı ərzaq balansları (min,ton)**




**Şəkil 5. Fərqli illərdə meyvə və giləmeyvə üzrə ərzaq balansları (min, ton)**

Son zamanlarda Azərbaycanın müxtəlif regionlarında aqrar sahədə ərzaq məhsulları emalının artım dinamikası heyvandarlıq sahəsində özünü daha qabarıq şəkildə göstərmişdir və əhalinin heyvandarlıq məhsulları ilə tam təmin olunma səviyyəsi hər il artmaqdadır.

Mütəxəssislərin verdikləri rəylərə əsasən, ölkəmizdə ərzaq təhlükəsizliyi göstəriciləri öncəki illərlə müqayisədə kifayət qədər yaxşılaşıb və orta səviyyələrdə qərarlaşmışdır. Ərzaq təhlükəsizliyinin təmin edilməsinin əsas yollarından biri də ərzaq resurslarının yaradılmasıdır. Məhsul emalında xarici ölkələrdən asılılığa son qoymaq məqsədi ilə yerli ərzaq resursları mənbəyi ölkə əhalisinin məhsula olan tələbatının tam qarşılanması məsələlərində mühüm rol oynayır. İllik istehlak həcmini müəyyən etmək ilə istehsal gücü ilə import arasında olan nisbəti aşkarlamaq mümkündür. Ölkə əhalisinin qida məhsulları ilə tam təmin edilmə səviyyəsini beynəlxalq standartlarla müəyyənləşdirmək qeyri-mümkündür. Bu zaman əhalinin yerləşdiyi coğrafi mövqeden, onların milli mentalitetinə kimi bütün faktorlar göz önündə tutulmalıdır.

Özünütəminetmə səviyyəsi ***(Öts)*** və xarici ticarətdən (idxaldan) asılılıq səviyyəsi ***(İas)*** balans informasiyaları əsasında hesablanan statistik göstəricilərdir. Bütün hesablamalar BMT təşkil etdiyi Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) tərəfindən irəli sürülmüş metodologiya vasitəsi ilə aparılır.

*Özünütəminetmə səviyyəsinin aşkarlanması prosesi aşağıda verilən düstur hesabına həyata keçirilir:*

Öts = istehsal / (istehsal + idxal - ixrac) * 100




| | Dənlilərin cəmi | buğda | arpa | qarğıdalı | vələmir | Sair növ dənlilər | Paxlalılar | Kartof | Bütün növ tərəvəz | Bostan məhsulları | Meyvə və giləmeyvə | Üzüm |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 2010 | 56.3 | 48.9 | 87.7 | 64.5 | 80.6 | 1 | 65.8 | 100.5 | 97.6 | 100 | 107.9 | 90.4 |
| 2011 | 64.8 | 57.7 | 93.7 | 68 | 82.8 | 4 | 70.4 | 101.6 | 95.7 | 100.2 | 116.8 | 89.9 |
| 2012 | 64.3 | 56.8 | 95.1 | 67.3 | 84.4 | 8.7 | 71.6 | 98.2 | 98.9 | 100.1 | 125.7 | 94.3 |
| 2013 | 63.9 | 55.9 | 97.8 | 60 | 89.3 | 2.3 | 76.6 | 97.6 | 102.3 | 100 | 121.8 | 94.8 |
| 2014 | 60.6 | 54.1 | 84.6 | 56.7 | 62.2 | 1.1 | 76.5 | 89.7 | 103.4 | 100.4 | 120.1 | 97.9 |
| 2015 | 64.5 | 54.8 | 95.1 | 54.1 | 93.1 | 6.3 | 69.3 | 89.1 | 103.4 | 100 | 113.7 | 93.1 |

Şəkil 6. Bitkiçilik məhsulları ilə özünütəminetmə səviyyəsi (%-lə)

*Xarici ticarətdən (idxaldan) asılılıq səviyyəsi bu yolla hesablanır:*
İas = idxal / (istehsal + idxal - ixrac) * 100




| | Dənlilərin cəmi | buğda | arpa | qarğıdalı | vələmir | Sair növ dənlilər | Paxlalılar | Kartof | Bütün növ tərəvəz |
|---|---|---|---|---|---|---|---|---|---|
| 2010 | 43.5 | 51.1 | 12.3 | 35.5 | 19.4 | 103.6 | 34.9 | 6.9 | 7 |
| 2011 | 35.2 | 42.3 | 6.3 | 32 | 17.2 | 96.1 | 29.6 | 8.3 | 9.5 |
| 2012 | 35.7 | 43.2 | 4.9 | 32.7 | 15.6 | 91.3 | 28.9 | 7.8 | 5.7 |
| 2013 | 36.1 | 44 | 2.2 | 40 | 89.3 | 2.3 | 76.6 | 7.7 | 3.1 |
| 2014 | 39.4 | 45.9 | 15.4 | 43.3 | 37.8 | 98.9 | 24 | 15.7 | 3.4 |
| 2015 | 35.5 | 45.2 | 4.9 | 45.9 | 6.9 | 93.7 | 30.7 | 14.8 | 3.4 |

Şəkil 7. Bitkiçilik məhsulları ilə təminatda idxaldan asılılıq səviyyəsi(%-lə)

Bu da o deməkdir ki, göstərilən məhsul seqmentləri üzrə yerli istehsalçıların mövqeləri ilə müqayisə etdikdə xarici ölkələrdən ölkəmizin kənd təsərrüfatı və ərzaq məhsulları bazarına daxil olan istehsalçıların mövqelərinin möhkəmlənməsinə müşahidə edilir. Bunun qarşısını almaqdan və ölkənin ərzaq təhlükəsizliyinin təmin olunma səviyyəsini artırmaq üçün həmin məhsul seqmentləri üzrə importu bir qədər əvəz etməyə imkan verə bilən səmərəli tədbirlər işlənib hazırlanmalı və həyata keçirilməlidir.

Aparılan təhlillərdən belə nəticəyə gəlmək olar ki, respublikada olan potensial ərzaq təhlükəsizliyinin yerli istehsal hesabına ödənilməsi mümkündür. Bu zaman torpaq resurslarından tam və səmərəli istifadə etmək ən vacib şərtlərdən biridir. Əkin dövriyyəsinə qaytarılmış torpaqlar

hesabına heyvandarlığın yem bazasını təşkil etmək və bununla da ölkəmizdə rəqabətədavamlı heyvandarlıq məhsullarının istehsalını əldə etmək olur. Hazırda yem bazasının yetərsiz olması heyvandarlıq məhsullarının baha başa gəlməsinə gətirib çıxarır. Bu da import olunan məhsullar qarşısında rəqabətə davamlı olmur.

NƏTİCƏ

Yekun nəticəyə əsasən vurğulamaq olar ki, əmək qabiliyyətli olan əhalinin iqtisadi fəallığının maksimum artırılması və məşğulluğun tam təmin olunması ərzaq təhlükəsizliyi probleminin həllimndə əsas faktorlardır. Həmçinin, ətraf mühitin çirklənməsi ilə bağlı problemi də kənd təsərrüfatı sahəsinə və ərzaq təminatına böyük ziyan vurur. Bir çox sənaye tullantıların, eləcə də qaz və digər kimyəvi maddələrin ətraf mühitə tullanılması iqlimin istiləşməsi problemini daha da qabarıqlaşdırır.

Ərzaq məhsullarının təmin olunması, insanların sağlam və fəal bir həyat sürməsi üçün əhəmiyyətli bir məsələdir. Bu məqalə Azərbaycan və ölkələr arasında ərzaq təhlükəsizliyinin ciddi bir problem kimi tanınmasından, onun ölkələrin iqtisadi və milli təhlükəsizliyinin əsas bir hissəsi olduğuna qədər bir çox aspekti öyrənir. Bu, milli, iqtisadi, sosial, demoqrafik və ekoloji faktorları əhatə edən geniş bir spektri əhatə edir.

Ərzaq təhlükəsizliyinin təmin edilməsi, iç resursların mobilizə edilməsinə əsaslanır. Bu, milli iqtisadi islahatlar strategiyasının hazırlanması, effektiv hüquqi normaların tətbiqi, dayanıqlı inkişaf və əhalinin həyat şəraitinin yaxşılaşdırılması ilə bağlı dəyişikliklərə əsaslanır.

ƏDƏBİYYAT SİYAHISI

1. İsmət Abasov. Azərbaycanın və dünya ölkələrinin kənd təsərrüfatı. Bakı, "Şərq-Qərb" Nəşriyyat Evi, 2013, 712 səh.
2. İsmət Abasov. Ərzaq təhlükəsizliyi və kənd təsərrüfatının prioritet istiqamətləri. Bakı 2011
3. Həmzə Xəlilov. Milli ərzaq təhlükəsizliyi: bazar transformasiyaları və iqtisadi qloballaşma amilləri Bakı, “Adiloglu” nəşriyyatı - 2001
4. Rasim Əliyev. Aqrar bazar və ərzaq təhlükəsizliyi məsələləri Bakı 2005
5. Əliyev M. T. Azərbaycan iqtisadiyyatının formalaşması və inkişaf etdirilməsi. Bakı “Mütərcim” 2002

# AZƏRBAYCANDA QADIN SAHIBKARLIĞI: İNKIŞAF PROBLEMLƏRİ VƏ PERSPEKTİVLƏR

**ESMİRA İBRAHIMOVA**

Bakı Mühəndislik Universiteti
İqtisadiyyat və idarəetmə fakültəsi/Biznesin idarə edilməsi ixtisası
*eibrahimova1@std.beu.edu.az*
ABŞERON, AZƏRBAYCAN

**XÜLASƏ**

Bu araşdırma Azərbaycanda qadın sahibkarlığının maliyyələşdirilməsi məsələlərini və faydalarını araşdırır. Qadın sahibkarların maliyyə ilə bağlı çətinliklərini və nailiyyətlərini müəyyən etmək məqsədilə öyrənilmişdir. Tədqiqatın əsas mövzularına bank kreditləri, dövlət tərəfindən maliyyələşdirilən proqramlar, sənaye və ticarət, təhsil və gender bərabərliyi strategiyaları daxildir.

Əldə edilən nəticələr maliyyələşdirmə prosesində qadın sahibkarlarla bağlı problemli məsələlərin və yaranan potensial imkanların bariz nümunəsidir. Bank kreditləri ilə bağlı problemlər, dövlət yardım proqramlarının effektivliyi və təhsil təşəbbüslərinin rolu ətraflı müzakirə olunur.

Bu tədqiqatın əhəmiyyəti ondan ibarətdir ki, o, maliyyə əldə etməkdə maraqlı olan qadın sahibkarlar üçün tövsiyələr və alternativ üsullar təklif edir. Müşahidə olunan hadisələr qadın sahibkarlığına dəstək verən dövlət və digər təşkilatlar üçün strateji planların yaradılmasına, onların sahibkarlıq fəaliyyətinin inkişafına mühüm təsir göstərir. Bu araşdırmanın nəticələri qadın sahibkarlarının böyüməsini dəstəkləyən və gender bərabərsizliyini azaldan təşəbbüslər üçün əsas yaradır.

Bu tədqiqat maliyyələşdirmə sahəsində qadın sahibkarların mövcud problemlərini və gələcək mümkün inkişaflarını aydın şəkildə təsvir edir, qeyri-müəyyənliyi və fərqli perspektivləri göstərir. Əldə edilmiş nəticələr qadın sahibkarlığının maliyyələşdirilməsi ilə bağlı çətinliklər və həll yolları haqqında anlayışımıza əhəmiyyətli təsir göstərir. Nəticələr qadın sahibkarların səmərəli maliyyələşdirilməsi və onların biznes uğurlarının artması ehtimalı ilə bağlı təşkilatlar, hökumət və digər qurumlar üçün strateji təlimat verəcək.

Elmi məqalədə, həmçinin Azərbaycan qadın sahibkarlarının peşə həyatlarında tutduqları mövqe, onların karyera yollarında qarşılaşdıqları çətinliklər və təklif olunan həll yolları açıqlanır.

**AÇAR SÖZLƏR: Qadın sahibkarlığı, maliyyələşmə çətinlikləri, dövlət dəstəyi.**

**ABSTRACT**

This study examines the issues and benefits of financing women's entrepreneurship in Azerbaijan. It was studied to identify the financial difficulties and achievements of women entrepreneurs. Key research topics include bank loans, government-sponsored programs, industry and trade, education, and gender equality strategies.

The obtained results are a clear example of the problematic issues related to women entrepreneurs in the financing process and the emerging potential opportunities. Issues related to bank loans, the effectiveness of public assistance programs, and the role of educational initiatives are discussed in detail.

The importance of this study is that it offers recommendations and alternative methods for women entrepreneurs interested in obtaining financing. . The observed events have an important impact on the creation of strategic plans for the state and other organizations that support women's entrepreneurship, and on the development of their entrepreneurial activities. The results of this study provide a basis for initiatives that support the growth of women entrepreneurs and reduce gender inequality.

This study clearly describes the current challenges and possible future developments of women entrepreneurs in financing, showing uncertainty and different perspectives. The results obtained have significant implications for our understanding of the challenges and solutions to financing women's entrepreneurship. The results will provide strategic guidance for organizations, government and other institutions regarding effective financing of women entrepreneurs and increased likelihood of their business success.

The scientific article also describes the position of Azerbaijani women entrepreneurs in their professional lives, the difficulties they face in their career paths and proposed solutions.

**KEYWORDS: Female entrepreneurship, financialization challenges, government support.**

## GIRIŞ

Bu tədqiqat Azərbaycanda qadın sahibkarlığının cari problemlərini və mümkün gələcək imkanlarını öyrənməklə qadınların iqtisadiyyata daha effektiv şəkildə qoşulmalarına kömək etməyi məqsəd qoyur. Qadınların sahibkarlıq vasitəsilə iqtisadi cəmiyyətdə daha çox iştirakı onlara öz potensiallarının inkişafında iştirak etmək və həyatlarını yaşamaq imkanı yaradır. Azərbaycan qadınlarının son illər sahibkarlıqda iştirakı əhəmiyyətli dərəcədə artmış, bu, iqtisadiyyatın müxtəlif sahələrində sahibkarlıq formasının daha da genişlənməsinə səbəb olmuşdur. Qadınların məşğulluq bazarında daha fəal iştirakı və sahibkarlığa marağın artması onların iqtisadi artımını və inkişafını gücləndirəcək. Bu, qadınların müxtəlif sahələrdə iştirak edərək inkişafını asanlaşdırır və onların sosial və iqtisadi öhdəliklərini daha səmərəli yerinə yetirmək üçün daha böyük imkanlara malik olmasını təmin edir.

Qadın sahibkarlığının inkişafı, sosial cins fərqliliyin azaldılması və cəmiyyətin iqtisadiyyatın müxtəlif sahələrinə bərabər qoşulması üçün önəmli bir dəstək nöqtəsi olur. Bunun səbəbi qadınların əmək bazarında daha tez-tez iştirak etməsi və iqtisadiyyatın dinamizmində daha böyük rola malik olmasıdır. Qadın sahibkarların sənayenin inkişafında və iqtisadiyyatın bir çox sahələrdə yüksəldilməsində mühüm rolu var.

Bu baxımdan qadın sahibkarlığının tərəqqisi Azərbaycan iqtisadiyyatının genişlənməsinə və yaxşılaşmasına müsbət təsir göstərir. Qadın sahibkarların məqsəd və imkanları əhəmiyyətlidir və daha uyğun və rəqabətə davamlı iqtisadiyyata gətirib çıxara bilər.

Azərbaycanda qadın sahibkarlığı son illərdə ciddi bir inkişaf göstərmiş və bu, iqtisadiyyatın müxtəlif sahələrində daha geniş yayılmağa başlamışdır. Qadınların iş bazarında daha aktif iştirakı və sahibkarlıq sahəsində artan marağı, onların iqtisadiyyatın güclənməsinə və sənayenin inkişafına dəstək verir. Bu, qadınların müxtəlif sahələrdə məşğul olaraq inkişaf etməsinə imkan yaradır və onların sosial və iqtisadi potensiallarını daha effektiv şəkildə icra etmələrini təmin edir.

Qadın sahibkarlığının inkişafı sosial gender fərqlərinin daraldılması və cəmiyyətin bütün iqtisadi sahələrində bərabər iştirak üçün mühüm dəstək nöqtəsidir. Bunun səbəbi qadınların əmək bazarında daha fəal olması və iqtisadi canlılığa getdikcə daha çox töhfə verməsidir. Qadın sahibkarlar sənayenin inkişafı və müxtəlif sahələrdə iqtisadi inkişaf üçün mühüm potensial nöqtələrdir. Bu baxımdan qadın sahibkarlığının inkişafı Azərbaycan iqtisadiyyatının dərinləşməsinə və inkişafına dəstək verir. Qadın sahibkarların marağı və potensialı iqtisadiyyatın daha aktual və rəqabətədavamlı olmasına böyük ümidlər verir.

Bu nəzərdən, qadın sahibkarlığının inkişafı, Azərbaycanın iqtisadiyyatının dərinləşdirilməsinə və inkişafına dəstək verir. Qadın sahibkarlarının maraqları və potensialı, iqtisadiyyatın daha müvafiq və rəqabətli olmasına imkan verəcək geniş perspektivlərə malikdir.

Qadınların iqtisadiyyatda iştirakının artması qadın və onun ailəsi üçün daha yaxşı həyat standartlarına, biznesdə və milli iqtisadiyyatda artıma gətirib çıxarır. Qadınların iqtisadi gücləndirilməsi, maliyyə və bilik də daxil olmaqla resurslara bərabər çıxış imkanı, onlara nəzarət, eləcə də kişilərlə bərabər layiqli iş və məhsuldar məşğulluğa çıxış imkanıdır. Bura qadınların iqtisadi müstəqilliyi və onların iqtisadiyyatın bütün sahələrində ailələrinin və cəmiyyətlərinin həyatına təsir edən qərarların qəbuluna tam çıxış imkanı daxildir. Buna görə də cəmiyyət heç vaxt bir reallığı unutmamalıdır ki, bazar yanaşmaları, iqtisadi üstünlüklər və stimullar qadınlara öz hüquq və imkanlarını həyata keçirməyə imkan verən strateji mühitin inkişafı ilə paralel getməlidir. Bu, həm hökumət tərəfindən, həm də özəl sektor tərəfindən xüsusi tədbirlərin görülməsini tələb edir. Azərbaycan qadınları ölkənin sosial-iqtisadi həyatında fəal iştirak edirlər və onların məşğul əhalinin ümumi sayındakı xüsusi çəkisi 48,2% təşkil edir.( Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin "Əmək bazarı" haqqında məlumatı, https://stat.gov.az/source/ labour/?lang=az, Son yeniləmə: 19.09.2022) Azərbaycanda kiçik və orta biznes (KOB) subyektlərinin inkişafının Hökumət, eləcə də özəl sektor üçün prioritet sahələrdən biri olduğunu nəzərə alsaq, ölkədəki KOB subyektlərinin təxminən 21,3%-ni təşkil edən qadın sahibkarlığının rolu xüsusi əhəmiyyət kəsb edir.( Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin "Əmək bazarı" haqqında məlumatı, https://stat.gov.az/source/ labour/?lang=az, Son yeniləmə: 19.09.2022) KOB subyektləri Azərbaycanın qeyrineft iqtisadiyyatına əhəmiyyətli maliyyə töhfəsi verməkdə qalmır, həm də gələcək inkişafı stimullaşdırmaq və yeni iş yerlərinin yaradılması üçün böyük potensial təklif edir. Son illərdə qadınların sahibkarlıq fəaliyyətinə daha çox cəlb olunması nəticəsində bir sıra irəliləyişlər müşahidə olunur. Bununla belə, qadınlar hələ də müəyyən problemlərlə üzləşməyə davam edir. Məsələn, əməyin ödənilməsində gender bərabərsizliyi, qeyri-rəsmi işlər, maliyyəyə, bazarlara və sosial xidmətlərə məhdud çıxış imkanı və s. Qadınların dövlət siyasətində və qəbulu prosesində məhdud iştirakı onların biznes üçün uğurlu formada ictimai vəkilliklə məşğul olmaq imkanlarını məhdudlaşdırır. Sahibkarlıq qadınlar və onların həmkarları üçün yeni iş yerləri yarada və onlara öz icmalarının üzləşdiyi problemlərin öhdəsindən gəlməyə kömək edə bilər. Qadınlar dəyişikliklərin mühüm amilidir. Qadın sahibkarların potensialından istifadə Azərbaycanın dayanıqlı və inklüziv inkişafı üçün mühüm əhəmiyyət kəsb edəcəkdir. Qadın sahibkarlara daha çox dəstək verilməsi təkcə sosial baxımdan deyil, həm də iqtisadi baxımdan vacibdir. Qadınlar əhalinin yarısını təşkil etdiyindən və ümumiyyətlə, kişilərdən daha aşağı gəlirlərə və iqtisadi iştirak səviyyəsinə malik olduğundan onların iqtisadi iştirakında hətta cüzi qazanc belə ümumi iqtisadi artıma əhəmiyyətli təsir göstərir. Bütün sahələrdə daha çox gender bərabərliyinə nail olmaq əmək bazarında gənc qadınların və kişilərin vəziyyətinin yaxşılaşdırılması üçün xüsusilə vacibdir. Sahibkarlıq həm də qadınların öz iqtisadi müstəqilliklərini təmin etmələri üçün yaxşı imkandır. Öz müəssisələrini idarə etmək, həm də onlara həmfikir qadınlarla ünsiyyət qurmaq, təcrübə mübadiləsi aparmaq və birbirindən öyrənmək, əməkdaşlıq etmək və sosial həyata daha çox cəlb olunmaq imkanı verir ki, bu istiqamətdə ucqar rayon və ya mühafizəkar icmalarda çətinliklər mövcuddur.

**TƏDQIQAT METODU**

Qarşıya qoyulmuş məsələni həll etmək üçün istifadə edilmiş metod və materiallar göstərilir. Aparılmış elmi təcrübələr nəticəsində əldə edilən cədvəllər, blok-sxemlər, qrafiklər göstərilir. Bu fəsildə tədqiqat işinin səmərəliliyi açıqlanmır, ancaq aparılmış təcrübə və nəticəsi açıqlanır. Qadın sahibkarlar konsepsiyası çox ümumi bir anlayışdır və müxtəlif sektorlarda, müxtəlif təşkilatlarda və müxtəlif statuslarda çalışan qadınları toplamaq mümkündür. Sahibkar qadın anlayışı "Müstəqil İş Sahibi Qadın" ya da "İş Qadını" olaraq adlandırılır. Bazar iqtisadiyyatı çərçivəsində öz işinin sahibi olan, tək işləyən və ya yanında içşisi olan, mal və xidmətlər istehsal edən, satan, kredit qaynaqlarını tədqiq edən, işlə bağlı təcili problemləri aşa bilən, yeni şəraitə uyğunlaşa bilən və bu sahədə təcrübəyə malik olan bir qadın artıq "sahibkar qadın" statusunu almışdır. (İraz R. , 2005, səh35).

Sahibkar qadın olmaq, qadına iş həyatında digər iş formalarına nisbətən daha çox muxtariyyət, azad hərəkət etmə və müstəqillik imkanı verdiyi kimi, yenə qadının işinə istiqamətli qısa və uzun müddətli planlar etmək, qaynaqları optimal istifadə etmək, bəşəri əlaqələr qurmaq və davam etdirmək, işində əldə etdiyi təcrübələri məhsuldar kanallara transfer etmək kimi bacarıqlar qazanmasına şərait yaradır.

İş həyatında qadınların əsas rolu, I və II Dünya müharibələri zamanı meydana gəlmişdir. Birinci Dünya Müharibəsinin başlanğıcı ilə çox sayda qadın, hətta uşaqlı və evli qadınlar mübarizə aparmaq üçün kişilərin boş yerlərini doldurmaq üçün işçi qüvvələrinə qoşulmağa başladılar, lakin müharibə başa çatdıqda, əksəriyyəti evlərinə döndü.

Gender əsaslı ideologiya, həqiqətən, kişilərlə qadın arasındakı fərqə gətirib çıxarır. Mədəniyyət ideologiyalarının dəyişməsi və xüsusilə də doğuma nəzarətə dair bir sıra müraciətlərin tətbiqi qadınlara iş həyatında və hətta ictimai həyatda daha çox imkanlar yaratmağa başlamışdır. Əlbəttə ki iqtisadi zərurət və həyat müştərəkdir fikri də bunları dəstəkləyir (Lambing and Kuehl, 2000).

Bir çox qadının sahibkarlıq planları bu əyri nöqtədə kəsilir. Bu vəziyyətlə üzləşən qadınların ailə məsuliyyətlərinə üstünlük verməsi qadınlara sahibkarlıq sahəsində etimadın olmamasına gətirib çıxarmışdır. Lakin əksər insanlar qadınlara tətbiq olunan ailə qayğılarının məsuliyyətinin digər vəzifələrdən daha çox olduğundan xəbərdar deyildi və əslində tətbiq olunan bu məcburiyyətləri qadının qəbul etməsinə səbəb onun şüuraltına yeridilən fikirlər idi.

İşdə uğur əldə etmək kişilər və qadınlar üçün çox fərqli anlayış deyildir əslində. Ancaq işləyən kişi yalnız işi ilə maraqlanırsa, işləyən qadın eyni zamanda ailənin və uşaqların işinə, evin düzəldilməsinə və istismarına baxmalıdır. İş həyatında müvəffəqiyyət əldə etmək üçün qadınlar iş balansını və şəxsi həyatı daha çox tarazlamalıdırlar. Bu balansın yaradılmasına güvənən, qərarlarının arxasında duran və şəxsi inkişafına əhəmiyyət verən qadınlar müvəffəqiyyət hədəflərinə asanlıqla çata bilərlər. Qadınların iş həyatında, xüsusilə də rəhbərlik vəzifələrində nisbəti daha çox artmalıdır, çünki onlar kişilərə nisbətən güclü intuisiya və daha yüksək məsuliyyətə malikdirlər.

Qadın sahibkarlar duyğusal, düşüncə və sosial davranışlarına görə kişi sahibkarlarından daha fərqli təsnifləndirilirlər. Qadınların sahibkarlıq tərzlərini diqqətə alsaq görərik ki, onlar əsasən, dörd kateqoriyada bir-birindən çox fərqlənir: Ənənəvi Qadın Sahibkar tipi, Evdar Qadın Sahibkar tipi, Yenilikçi Qadın Sahibkar tipi, Fundamental Qadın Sahibkar tipi (Feminist).

***Cədvəl 1.*** *Qadın sahibkar tipləri*

| | Ənənəvi cinsiyyət roluna sadiq olanlar | | |
|---|---|---|---|
| | | çox | az |
| Sahibkar idealları üstün olanlar | çox | ənənəvi | yenilikçi |
| | az | evdar | fundamental |

***Mənbə:*** *Catherina K. Markalaşan kadınlar, s. 163*

16. Rehman, A. U., Ali, T., Hussain, S., & Waheed, A. (2021). Executive remuneration, corporate governance and corporate performance: Evidence from China. Economic Research-Ekonomska Istrazivanja, 34(1), 3092-3118.
17. Deng, B., Liu, J., & Ji, L. (2020). Corporate awards and executive compensation: empirical evidence from Chinese A-Share listed companies. China Journal of Accounting Studies, 8(1), 66-96.
18. Przychodzen, W., & Gómez-Bezares, F. (2021). CEO–Employee Pay Gap, Productivity and Value Creation. Journal of Risk and Financial Management, 14(5).
19. Bussin, M. (2015). CEO pay-performance sensitivity in the South African context. South African Journal of Economic and Management Sciences, 18(2), 232-244.

20. Hidayah, R., Zahid, A., Suryarini, T., & Basher, S. R. (2019). Corporate performance and executive compensation in Indonesia. Journal of Social Sciences Research, 5(3), 634-639.
21. Zhang, C.-Z., You, Y., & Gao, Z.-Q. (2015). Empirical study on the relationship between executive compensation dispersion and firm performance: The moderating role of technology intensity. Journal of High Technology Management Research, 26(2), 196-204.
22. Cambrea, D. R., Colonnello, S., Curatola, G., & Fantini, G. (2019). CEO investment of deferred compensation plans and firm performance. Journal of Business Finance and Accounting, 46(7-8), 944-976.
23. Naik, M., Padia, N., & Callaghan, C. W. (2020). Variable executive remuneration and company performance: Insights from the Johannesburg Stock Exchange, South Africa. Acta Commercii, 20(1).
24. Brogi, M., & Lagasio, V. (2019). Do bank boards matter? A literature review on the characteristics of banks' board of directors. International Journal of Business Governance and Ethics, 13(3), 244-274.
25. Resnick, A.A. (2013). 'The relationship between executive remuneration and company performance: A study of 20 of the largest companies listed on the Johannesburg Shares Exchange Ltd', Unpublished masters' mini-dissertation, University of Johannesburg
26. PwC, (2017). Understanding a financial statement audit, viewed 22 July 2022, from https://www.pwc.com/im/en/services/Assurance/pwc-understanding-financialstatementaudit.pdf.
27. Mishra, C. S., & Nielsen, J. F. (2000). Board independence and compensation policies in large bank holding companies. Financial Management, 29(3), 51–69.
28. Yermack, D. (1996). Higher market valuation of companies with a small board of directors. Journal of financial economics, 40(2), 185-211.
29. Abdel-Azim, M. H., & Soliman, S. (2020). Board Of Directors'characteristics And Bank Performance: Evidence From The Egyptian Banking Sector. Journal of Governance and Regulation/Volume, 9(4).
30. Almontaser Abdallah Mohammad Qadorah, Faudziah Hanim Bt Fadzil (2018). The Effect of Board Independence and Board Meeting on Firm Performance: Evidence from Jordan. Journal of Functional Analysis, Vol 6, Issue 5 105-109.
31. Cavaco, S., Challe, E., Crifo, P., Rebérioux, A., & Roudaut, G. (2016). Board independence and operating performance: analysis on (French) company and individual data. Applied economics, 48(52), 5093-5105.Yermack, D. (1997). Good timing: CEO stock option awards and company news announcements. The journal of Finance, 52(2), 449-476.
32. Alves, P., Couto, E. B., & Francisco, P. M. (2016). Executive pay and performance in Portuguese listed companies. Research in International Business and Finance, 37, 184-195.
33. Ndayisaba, G., & Ahmed, A. D. (2015). CEO remuneration, board composition and firm performance: Empirical evidence from Australian listed companies. Corporate Ownership & Control, 13(1–5), 534–552.

# REGİONUN SOSİAL-İQTİSADİ İNKİŞAFINDA AQRAR SEKTORUN ROLU

**ŞAHNABAT KAZIMOVA**

Bakı Mühəndislik Universiteti
İxtisas: Makroiqtisadi siyasət
skazimova@std.beu.edu.az
BAKI, AZƏRBAYCAN

**Xülasə**

Müasir dövrdə aqrar sektor dünya iqtisadiyyatı üçün strateji əhəmiyyətə malikdir.Çünki ölkənin ərzaq təhlükəsizliyinin təmin olunmasında aqrar sektorun rolu böyükdür. Son illər ölkəmizdə həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində aqrar sektorun inkişafı üçün əlverişli şərait yaradılmışdır. Ölkəmizdə aparılan islahatlar nəticəsində aqrar sektorda bir sıra strateji məhsullara olan tələbatın yerli istehsal hesabına ödənilməsinə,ərzaq təhlükəsizliyində xarici bazardan asılılığın azalmasına nail olunmuşdur. Baxdığımız tədqiqat işində regionlarda sosial-iqtisadi inkişafın əsas aspektlərini və bu aspektlərin aqrar sektorundakı rolu təhlil olunmuşdur.

**Açar sözlər: regionlar, sosial-iqtisadi inkişaf, aqrar sektoru**

**THE ROLE OF THE AGRICULTURAL SECTOR IN THE SOCIAL-ECONOMIC DEVELOPMENT OF THE REGION**

**Summary**

In modern times, the agrarian sector has a strategic importance for the world economy, because the role of the agrarian sector in ensuring the food security of the country is great. Favorable conditions for the development of the agricultural sector have been created as a result of purposeful measures implemented in our country in recent years. As a result of the reforms carried out in our country, the demand for a number of strategic products in the agricultural sector has been met through local production, and the dependence on the foreign market has been reduced in terms of food security. The main aspects of the socio-economic development in the regions and the role of these aspects in the agrarian sector were analyzed in our research work.

**Keywords:** regions, socio-economic development, agrarian sector

## Giriş

Kənd təsərrüfatında dövlət siyasətinin xarici təcrübəsinə nəzər salsaq görərik ki, bir çox ölkələrdə kənd təsərrüfatının inkişafı üçün sabit iqtisadi, hüquqi və sosial şərait yaratmaq üçün dövlət fermerlərin gəlirlərinə, strukturuna təsir göstərir. Kənd təsərrüfatı istehsalına, kənd təsərrüfatı bazarına, kəndin sosial quruluşuna, əhalinin keyfiyyətli ərzaq məhsulları ilə təmin olunmasına və ətraf mühitin mühafizəsinə mane olur [2].

Aqrar sahənin inkişafında inkişaf etmiş ölkələrin təcrübəsi mühüm əhəmiyyət kəsb edir. Tarixən Qərbin kənd təsərrüfatı siyasətinin iki əsas istiqaməti var idi: Şimali Amerika və Qərbi Avropa. İkinci istiqamətə Qərbi Avropa ölkələri, həmçinin Yaponiya və bəzi ərzaq idxalçıları daxildir. Hazırda iqtisadi cəhətdən ən inkişaf etmiş ölkələrin kənd təsərrüfatı siyasətinin əsas məzmununu müxtəlif subsidiyalar və yardımlar vasitəsilə aqrar sektora dövlət dəstəyi təşkil edir. Bəzi ölkələrdə kənd təsərrüfatına dövlət maliyyə investisiyaları məhsulların bazar dəyərindən 1,5-2 dəfə çoxdur. Hazırda ən böyük ixracatçı ölkələrdə, məsələn, ABŞ, Kanada, Aİ ölkələrində kənd təsərrüfatına və qida sənayesinə dövlət dəstəyi ərzaq istehsalının yüksək artımında mühüm rol oynayır. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) qəbul edilmiş təsnifatına əsasən, kənd təsərrüfatı istehsalçılarının gəlirlərinin dəstəklənməsi birbaşa dövlət subsidiyaları, qalan hissəsi isə dolayı subsidiyalar hesabına həyata keçirilir.

## TƏDQIQAT METODU

Respublika prezidentinin müxtəlif dövrlərdə qəbul etdiyi dövlət proqramlarında hər zaman ərzaq təhlükəsizliyi aktual məsələ olub. Cənab Prezidentin “Regionların 2014-2018-ci illərdə sosial-iqtisadi

inkişafı Dövlət Proqramı"nın dördüncü ilinin yekunlarına dair konfransda ərzaq təhlükəsizliyinə geniş yer verməsi, tövsiyə və tapşırıqlar verməsi buna əyani nümunədir. Ərzaq təhlükəsizliyinin təmin edilməsində taxıl strateji məhsullar arasında birinci gəlir. Buna görə iri taxılçılıq təsərrüfatlarının yaradılması prioritet məsələlərdən hesab olunur [6].

**Cədvəl 1. Kənd təsərrüfatının ümumi məhsulu, faktiki qiymətlərlə, milyon manat**

| İllər | Cəmi | o cümlədən | |
|---|---|---|---|
| | | bitkiçilik məhsulları | heyvandarlıq məhsulları |
| **Bütün təsərrüfat kateqoriyaları** | | | |
| **2000** | 1112,4 | 617,7 | 494,7 |
| **2001** | 1242,2 | 718,6 | 523,6 |
| **2002** | 1342,9 | 774,1 | 568,8 |
| **2003** | 1450,5 | 807,0 | 643,5 |
| **2004** | 1572,7 | 874,8 | 697,9 |
| **2005** | 1844,8 | 988,2 | 856,6 |
| **2006** | 2115,5 | 1124,4 | 991,1 |
| **2007** | 2918,6 | 1726,4 | 1192,2 |
| **2008** | 3505,9 | 2084,9 | 1421,0 |
| **2009** | 3805,5 | 2106,0 | 1699,5 |
| **2010** | 3877,7 | 1999,2 | 1878,5 |
| **2011** | 4525,2 | 2339,8 | 2185,4 |
| **2012** | 4844,6 | 2458,2 | 2386,4 |
| **2013** | 5244,6 | 2629,6 | 2615,0 |
| **2014** | 5225,8 | 2449,4 | 2776,4 |
| **2015** | 5635,3 | 2761,1 | 2874,2 |
| **2016** | 5632,4 | 2577,2 | 3055,2 |
| **2017** | 6580,0 | 3019,0 | 3561,0 |
| **2018** | 7010,0 | 3186,0 | 3824,0 |
| **2019** | 7836,7 | 3751,2 | 4085,5 |
| **2020** | 8428,9 | 4028,4 | 4400,5 |
| **2021** | 9163,4 | 4511,0 | 4652,4 |
| **2022** | 10984,2 | 5538,0 | 5446,2 |

**Mənbə:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi https://www.stat.gov.az/source/industry/

Cədvəl 1 məlumatlarından gördüyümüz kimi, kənd təsərrüfatının ümumi mənfəəti illər üzrə artım göstərmişdir. Bitkiçilik məhsulları 2018-2022-ci illər arasında ən məhsuldar dövrünü yaşamışdır. Heyvandarlıq məhsullarının mənfəət göstəriciləri də həmçinin 2000-2022-ci illər arasında daim artımda olmaqla birlikdə, 2016-2022-ci illərdə ən yüksək mənfəət göstəricilərinə çatmışdır [6].

**Cədvəl 2. Ət istehsalı, kəsilmiş çəkidə, ton**

| | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|---|---|---|---|
| Azərbaycan Respublikası* | 298613 | 302227 | 316827 | 326024 | 335719 | 346011 | 357573 | 368234 |
| Bakı şəhəri | 2302 | 2434 | 2406 | 1792 | 4839 | 5635 | 3857 | 2249 |
| Naxçıvan Muxtar Respublikası | 13812 | 14069 | 14378 | 15090 | 15517 | 15951 | 16505 | 17421 |
| Abşeron-Xızı iqtisadi rayonu | 5149 | 5192 | 5703 | 6292 | 7093 | 7337 | 7185 | 9596 |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| Dağlıq Şirvan iqtisadi rayonu | 11531 | 11645 | 11819 | 11195 | 11453 | 11657 | 11750 | 11831 |
| Gəncə-Daşkəsən iqtisadi rayonu | 9728 | 9983 | 10394 | 10521 | 10254 | 9219 | 9096 | 9040 |
| Qarabağ iqtisadi rayonu | 21776 | 22147 | 23189 | 24181 | 25805 | 26269 | 26910 | 27157 |
| Qazax-Tovuz iqtisadi rayonu | 18559 | 19158 | 19476 | 20130 | 20250 | 21048 | 21727 | 21849 |
| Quba-Xaçmaz iqtisadi rayonu | 45628 | 45730 | 55160 | 53782 | 48527 | 48309 | 49785 | 52894 |
| Lənkəran-Astara iqtisadi rayonu | 29088 | 28858 | 29488 | 27537 | 26006 | 24200 | 23828 | 25140 |
| Mərkəzi Aran iqtisadi rayonu | 30037 | 28707 | 28342 | 27507 | 28658 | 28528 | 37991 | 40861 |
| Mil-Muğan iqtisadi rayonu | 26589 | 27209 | 26838 | 26338 | 26788 | 26748 | 26782 | 26907 |
| Şəki-Zaqatala iqtisadi rayonu | 20539 | 20143 | 20230 | 20645 | 20749 | 20849 | 21097 | 20088 |
| Şərqi Zəngəzur iqtisadi rayonu | 5514 | 5690 | 5677 | 5674 | 5656 | 5726 | 5856 | 6147 |
| Şirvan-Salyan iqtisadi rayonu | 26268 | 26129 | 27330 | 27387 | 26926 | 31279 | 28395 | 25716 |

**Mənbə:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi https://www.stat.gov.az/source/industry/

Yuxarıdakı cədvəl 2 məlumatlarından gördüyümüz kimi, ət istehsalı regionlar üzrə maximum göstərici Lənkəran-Astara iqtisadi rayonunda olmuşdur. İllər üzrə göstəricilər artım göstərmiş və 52894 göstərici ilə Quba-Xacmaz iqtisadi rayonunda qeydə alınmışdır.

**Cədvəl 3. Kənd təsərrüfatı müəssisələrinin əsas iqtisadi göstəriciləri**

| **Göstəricilərin adı** | **2015** | **2016** | **2017** | **2018** | **2019** | **2020** | **2021** | **2022** |
|---|---|---|---|---|---|---|---|---|
| Mənfəət , min manat | 53275 | 92290 | 83720 | 116506 | 120622 | 132835 | 201836 | 319498 |
| Zərər, min manat | 13512 | 17043 | 20906 | 19587 | 27926 | 28820 | 30638 | 9486 |
| Ümumi mənfəət, min manat | 39763 | 75246 | 62814 | 96918 | 92696 | 104016 | 171197 | 310012 |
| Satışdan əldə edilən gəlir, min manat | 391801 | 441505 | 504031 | 558807 | 622035 | 637351 | 794863 | 1104580 |
| Bitkiçilikdə mənfəət (zərər (-), min manat | 20241 | 40267 | 32235 | 56577 | 68795 | 69321 | 127159 | 170174 |
| Heyvandarlıqda mənfəət (zərər (-), min manat | 19993 | 31329 | 24355 | 19048 | 10481 | 27180 | 32557 | 113751 |
| Kənd təsərrüfatının ümumi məhsulu, (faktiki satış qiymət-ləri ilə), min manat | 374320 | 408711 | 383157 | 384958 | 615203 | 814426 | 988366 | 1172861 |

**Mənbə:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi https://www.stat.gov.az/source/industry/

Baxdığımız cədvəl 3-də kənd təsərrüfatı müəssisələrinin əsas iqtisadi göstəriciləri verilmişdir. Cədvəli təhlil etdikdə görürük ki, 2015-2022 – ci illər üzrə kənd təsərrüfatı müəssisələrinin mənfəəti xeyli artım göstərmişdir. Bununla birlikdə zərər göstəricilərindəki azalma kənd təsərrüfatının son illərdə inkişafını sübut edir. Bununla birlikdə kənd təsərrüfatı məhsullarının satışı da illər üzrə artım göstərmişdir bu həmin sənayenin satış perspektivinin illər üzrə artımını sübut edir [1].

**Nəticə**

Azərbaycan dövləti 2022-2030-cu illəri əhatə edən postpandemiya və münaqişədən sonrakı dövrdə keyfiyyətcə yeni strateji inkişaf mərhələsinə qədəm qoyur. Bu strateji dövrdə yeni nəslin struktur və institusional islahatları yolu ilə müasir və sabit iqtisadi artım mənbələri səfərbər edilir, ölkə iqtisadiyyatının innovativ istiqaməti və maliyyə sabitliyi daha da gücləndirilir, ölkə iqtisadiyyatının qlobal iqtisadiyyata səmərəli inteqrasiyası təmin edilir. dünya iqtisadiyyatı təmin edilir. dəyər zənciri. tikintisi baxımından yeni məqsədlərə nail olmağı qarşısına məqsəd qoyub.

Bu məqsədlə "Azərbaycan–2030: Sosial-iqtisadi inkişafın milli prioritetləri" təsdiq edilmiş və bu prioritetlər əsasında "2022-2026-cı illər üçün Sosial-İqtisadi İnkişaf Strategiyası" hazırlanmışdır. Bu Strategiyanın həyata keçirilməsi 2026-cı ilin sonuna qədər ölkə iqtisadiyyatının perspektivində ciddi dəyişikliklərə səbəb olacaq, iqtisadi artım tamamilə yeni keyfiyyət amilləri əsasında baş

verəcək, xüsusilə prioritet istiqamətlərdə artım tempi daha da sürətlənəcək, ölkədə sabitlik bərqərar olacaq. iqtisadiyyat və məşğulluq gücləndiriləcək.

Baxdığımız tədqiqat işində məhz bu prioritetlərin sosial-iqtisadi inkişafa təsiri və regionlarda görülmüş bu tədbirlərin əsas istiqamətləri təhlil olunmuşdur.

**Ədəbiyyat siyahısı**


1. "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın təsdiq edilməsi haqqında
2. Allahverdiyev H.B., Qafarov K.S., Əhmədov Ə.M. "Milli iqtisadiyyatın Dövlət tənzimlənməsi", Bakı-2006
3. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər https://president.az/az/articles/view/50474
4. Mehdiyev X.O. "Azərbaycanin sosial-iqtisadi inkişafına retrospektiv baxış: müqayisəli təhlil", Bakı-2015
5. Paytaxt və əyalətlər: əsas sosial-iqtisadi fərqlər. Bakı Araşdırmalar İnstitutu. 25 aprel, 2018. https://bakuresearchinstitute.org/az
6. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi https://www.stat.gov.az/source/industry/


# İNFLYASIYA NÖVLƏRININ YARANMA SƏBƏBLƏRI


**ARZU QULIYEVA**
Bakı Mühəndislik Universiteti
İxtisas: Makroiqtisadi siyasət
quliyevarzu2001@gmail.com
BAKI, AZƏRBAYCAN



**Xülasə**

Nəzəri və təcrübəvi əhəmiyyəti olan mühüm iqtisadi göstəricilərdən biri də inflyasiya kateqoriyasıdır. İnflyasiya iqtisadiyyatda qiymətlərin ümumi səviyyəsinin yüksəlməsi və ya pulun alıcılıq qabiliyyətinin azalması ilə nəticələnən bir proses кimi müəyyən olunur.İnflyasiyanın başa düşülməsi üçün ölçülməsi və miqdarca qiymətləndirilməsi əsas məsələdir. Ona görə ki, inflyasiya dərəcəsi iqtisadiyyatın ümumi vəziyətinin mənzərəsini əks etdirir və qiymət dəyişkənliyi haqqında məlumat verir. Yəni inflyasiya sürəti onun əvvəlki dövrlərlə müqayisədə hansı miqdarda dəyişdiyini göstərir. Müasir dövrdə inflyasiya səviyyəsini müəyyən etmək üçün indekslərdən, əsasən qiymət indeksindən istifadə edilir. Bunların içərisində istehlak əmtəələrinin qiymətlərinin indeksi, istehsal təyinatlı əmtəələrin topdan satış qiymətinin indeksi və Ümumi Milli Məhsul deflyatoru geniş yayılmışdır. Əvvəlki dövrlərdə inflyasiya adətən fövqəladə hallarda meydana gəlirdi. Məsələn, müharibə vaxtı dövlət öz hərbi xərclərini ödəmək üçün küllü miqdarda kağız pullar buraxılırdı. Son 30-40 il ərzində isə bir çox ölkələrdə inflyasiya daimi xarakter daşıyır və təkrar istehsal prosesinin bir amilinə çevrilmşdir.İnflyasiyanın 2-ci vacib səbəbi hökümətin maliyyə balansının kəsirlə yerinə yetirilməsi, daha doğrusu büdcənin kəsirlə yerinə yetirilməsidir. Əgər hökümətin gəlirləri onun xərclərinin maliyyələşdirilməsinə çatmırsa, hökümət xarici və ya daxili mənbələrdən borclanma məcburiyyətində qalır. Müəyyən zaman daxilində hökümət bu kəsri xarici borclar hesabına müəyyən edirsə, onun həmin dövrdə inflyasiyaya təsiri çox aşağı ola bilər, amma sonrakı mərhələlər üçün bu inflyasiya fırtınası üçün bir mənbə kimi çıxış edir.



**Açar sözlər:** inflyasiyanın növləri, tələb inflyasiyası, təklif inflyasiyası



**Summary**

One of the important economic indicators of theoretical and practical importance is the category of inflation. Inflation is defined in economics as a process that results in an increase in the general level of prices or a decrease in the purchasing power of money. Measuring and quantifying inflation is a key issue to understand. Because the inflation rate reflects the picture of the general state of the economy and provides information about price volatility. That is, the rate of inflation shows how much it has changed compared to previous periods. In modern times, indices, mainly the price index, are

used to determine the level of inflation. Among them, the consumer goods price index, the wholesale price index of manufactured goods and the Gross National Product deflator are widespread. In earlier times, inflation usually occurred in emergency situations. For example, during the war, the government issued large amounts of paper money to cover its military expenses. During the last 30-40 years, in many countries, inflation is permanent and has become a factor of the reproduction process. The second important reason for inflation is the deficit of the government's financial balance, or rather, the deficit of the budget. If the government's revenues are not sufficient to finance its expenditures, the government is forced to borrow from foreign or domestic sources. If the government determines this deficit at the expense of foreign debts within a certain period, its impact on inflation may be very low at that time, but for later stages it acts as a source of inflationary storm.

**Key words:** types of inflation, demand inflation, supply inflation

**Giriş**

İnflyasiya müasir dövrdə bu və ya digər dərəcədə həm keçid iqtisadiyyatlı, həm də bazar iqtisadiyyatlı ölkələr üçün problem olaraq qalmaqdadır. İnflyasiya-qiymətlərin ümumi səviyyəsindəki daimi artımlar və bunun nəticəsi olaraq pulun mütəmadi şəkildə qiymətdən düşməsidir.İnflyasiya-qiymətlərin ümumi səviyyəsinin yüksəlməsidir, lakin bu o demək deyildir ki, bütün əmtəə və xidmətlərin qiymətləri qalxmalıdır. Müasir bazar iqtisadiyyatı şəraitində bütün dünya ölkələrinin o cümlədən Azərbaycanında qarşısında duran əsas vəzifələrdən biri inflyasiyanın sabit saxlanılması və inflyasiyanın yol açа biləcəyi işsislik, yoxsulluq, iqtisadi böhranlar, qiymətlərin kəskin bahalaşması kimi böyük problemlərin qarşısını almaqdır.

Iqtisadi fenomen kimi inflyasiya XX əsrdə yaranmışdır, baxmayaraq ki, qiymət artımları daha əvvəllər, müharibə dövrlərində də mövcud olmuşdur. İnflyasiya terminin özü milli pul sisteminin xırdalanmayan kağız pullara kütləvi keçidi ilə bağlı olaraq yaranıb. Ilkin mənada inflyasiyanın mənası kağız pulların ifrat dərəcədə olması və bununla əlaqədar olaraq onların qiymətdən düşməsi ilə bağlı oldu. Pulun qiymətdən düşməsi əmtəə qiymətinin artmasına gətirib çıxardı. Bununla da inflyasiya meydana çıxır ( bu soz latın dilindən qabarma kimi tərcümə olunur). Müasir iqtisadiyyatda inflyasiya bütöv bir kompleksin nəticəsində yaranır və təsdiq edir ki, inflyasiyanı yaradan səbəb yalnız pul deyil, o, iqtisadi, ictimai-siyasi bir fenomendir. İnflyasiya həm də siyasi psixoloji və ictimai əhval ruhiyyədən də asılıdır. Bununla əlaqədar inflyasiya gözləmələri‖ meydana çıxır: əgər cəmiyyət inflyasiya gözləyirsə, bu qaçılmaz olaraq baş verəcək. İnflyasiya bazar iqtisadiyyatının daimi elementidir. Bu qlobal xarakterli bir sıra amillərə səbəb olmuşdur: Əmtəə istehsalının sürətli artımı, onun strukturun mürəkkəbləşdirilməsi ; Qiymət sisteminin və sosial köçürmələrin universallaşması; Qiymətləndirmə təcrübəsi inhisar müəssisələrin təsiri altında dəyişib, qiymət rəqabət sahəsi kəskin azalıb. İstehsalın səmərəliliyinin yüksəldilməsi qiymətlərin aşağı salınması ilə deyil, istehsal iştirakçılarının mənfəətinin və gəlirlərinin artmasında özünü göstərir. Dövlət xərclərinin artması və dövlət büdcəsinin kəsri də inflyasiyanın yaranmasına səbəbdir. Inflyasiyanın böyüklüyü onun həlledici xarakteristikasıdır.

**TƏDQIQAT METODU**

İnflyasiya mal və xidmətlərin keyfiyyətinin yüksəlməməsi halında qiymətlərinin ümumi səviyyəsinin qalxmasıdır. Başqa sözlə desək, inflyasiya mal və xidmətlərin qiymətinin artması ilə müşayiət olunan pulun dəyərsizləşməsi prosesidir. Yalnız qiymətlərin ümumi səviyyəsi artığıa zaman inflyasiya baş vermiş hesab olunur.

İnflyasiya müxtəlif formalarda meydana gələ bilər. İqtisadi ədəbiyyatda inflyasiya elə təsnifatlar ilə səciyyələnir ki, o, bu və ya digər əlamətlərə görə xarakterizə olunur.

Təzahür formasına görə :

- Açıq inflyasiya
- Gizli inflyasiya (eyni zamanda sürünən inflyasiya)

Açıq inflyasiya zamanı ümumi qiymət səviyyəsinin real artımı müşahidə olunur və müxtəlif inflyasiya göstəricilərindən sonra bu artımı real olaraq hesablamaq olar.

Gizli inflyasiya özünü qiymətlərin artımında deyil, əmtəə kütləsinin qıtlığında göstərir. Bu zaman əmtəə ehtiyatları əhəmiyyətli dərəcədə azalır.

Qiymət artımının tarazlıq dərəcəsinə görə:

- Tarazlaşdırılmış inflyasiya
- Tarazlaşdırılmamış inflyasiya

Tarazlaşdırılmış inflyasiya zamanı bütün mal qrupları üzrə qiymət artımı müntəzəm olaraq müşahidə edilir.Tarazlaşdırılmamış inflyasiya zamanı qiymət artımı müxtəlif əmtəə qrupları üzrə xeyli fərqlənir. Bu zaman bəzi əmtəələr üzrə ümumiyyətlə qiymət artımı müşahidə edilməyə və hətta qiymət azalması da baş verə bilər.

Proqnozlaşdırılma imkanlarına görə:

- Proqnozlaşdırılan inflyasiya;
- Proqnozlaşdırılmayan inflyasiya

Proqnozlaşdırılan inflyasiya zamanı hökumət onu əvvəlcədən bilib inflyasiyanın parametrlərini hesablaya bilər, qiymətlərin səviyyəsinin sabitləşdirilməsi üçün müəyyən tədbirlər görə bilər və onun mənfi nəticələrini azalda bilər. Proqnozlaşdırılmayan inflyasiya zamanı hökumət inflyasiya prosesini şərtləndirən amilləri hesablaya bilmir.

Qiymət səviyyəsinin artım sürətinə görə:

- Mülayim və ya sürünən inflyasiya
- Sürətli inflyasiya
- Hiperinflyasiya

Mülayim və ya sürünən inflyasiya- qiymətlərin artımı 10%-ə dək olur. ( qiymətlərin artımının 3-5% olduğu normal inflyasiya da fərqləndirilir.) Belə inflyasiya inkişaf etmiş ölkələr üçün xarakterikdir. Sürətli (sıçrayışlı) inflyasiya zamanı qiymətlər ildə bir neçə yüz faizə qədər artır.

Hiperinflyasiya (ifrat) qiymətlərin səviyyəsinin kəskin artması kimi hər ay çərçivəsində, həm də ümumilikdə il ərzində müşayiət olunur; İqtisadçılar hesab edirlər ki, əgər qiymətlər ayda 50% və daha çox, ildə bir neçə min faiz artırsa bu zaman hiperinflyasiya haqqında danışmaq lazımdır.[1]

İnflyasiya prosesini gücləndirən və hərəkətə gətirən dəyişənlərdən asılı olaraq inflyasiyasını iki qrupa ayırmaq olar:

- Tələb inflyasiyası
- Təklif inflyasiyası

Tələb inflyasiyası o zaman baş verir ki, məcmu tələb həddən artıq yüksək olduğu üçün məhsul tələbi ödəyə bilmir. Tələb artıqlaması nəticəsində qiymətlər qalxır. 1980-ci illərin sonu və 1990-cı illərin əvvəllərində SSRİ-də baş vermiş inflyasiya bunun bariz nümunəsidir. Həmin dövrdə əhalinin gəlirləri artmış, istehlakla bağlı məhsul və xidmətlərin həcmi isə daha da azalmışdır. Başqa bir misal, xüsusilə sürətli iqtisadi genişlənmə dövrlərində xammal, enerji, nəqliyyat və emal sənayesi çatışmazlığı olan müasir Çindir. Nəticədə bu sektorlarda mal və xidmətlərin qiymətləri sürətlə bahalaşır ki, bu da bütün iqtisadiyyata öz təsirini göstərir. Tələbin həddindən artıq artması nəticəsində qiymətlər yüksəlir və müəssisələrə qazanclarını artırmaq şansı verir.Müəssisə istehsalını genişləndirir, insan resurları və maliyyə cəlb edir. Tələbatın daha da artması və qiymətlərin yüksəlməsi resurs sahiblərinin pul gəlirlərinin artmasının nəticəsidir.

İstehsal olunan resurslardan tam istifadə edilmədikdə istehsal xərclərinin artması nəticəsində baş verən qiymət artımı təklif inflyasiyasıdır. İqtisadiyyata dair ədəbiyyatda təklif inflyasiyası bəzən xərc inflyasiyası adlanır, lakin bu mübahisəlidir.Yüksək vergilər, yüksək kapital faiz dərəcələri və artan qlobal bazar qiymətləri təklif inflyasiyasını şərtləndirən amillərdəndir.

İnflyasiyanın yaranmasına əsas səbəb tələb və təklif arasında müxtəlif disbalansın olmasıdır. Tarazlığın pozulması isə dövriyyədə olan pul kütləsinin qəfil olaraq artması və yaxud kreditlərin həddindən artıq əlçatan olması ilə bağlıdır.Yüksək inflyasiya şərtlərində istehsalçıların və istehlakçıların məhsula olan münasibəti dəyişir. Bu zaman əhalinin gəliri azalır, qənaət etmək çətinləşir. Dəyərdən düşən ehtiyat vəsaitləri isə xilas etmək üçün əhali əcnəbi valyuta, daşınmaz əmlak və yaxud məhsul almağa başlayır. Bu şərtlərdə biznes nümayəndələri istehsalatı genişləndirməkdə, uzun müddətli investisiya etməkdə və onu inkişaf etdirməkdə maraqlı olmurlar.İqtisadiyyatın vəziyyətinə təsir edən digər amil inflyasiya gözləntiləridir. İnsanlar qiymətlərin növbəti artımını gözlədikdə, gəlirlərinin bir hissəsini bankda əmanət hesabına yatırmaq əvəzinə, dərhal olaraq əcnəbi valyuta almağa başlayır. Sahibkarlar da xammalın dəyərinin artmasına ümid edərək eyni cür hərəkət edirlər. Belə olduqda biznes üçün inflyasiya riskləri azalsa da, inflyasiyanın özü qiymətlərin artımı və tələbatın artması səbəbindən daha sürətli hal almağa başlayır. [2]

İnflyasiya özü ilə həm iqtisadi, həm də sosial baxımdan çoxlu problemlər gətirir. Birinci gəlir bölgüsünü pozur və varlı ilə kasıb arasındakı uçurumun daha da dərinləşməsinə səbəb olur. Digər tərəfdən, əmanətləri azaldaraq, ölkənin inkişafı üçün lazım olan investisiyalar əvəzinə qısamüddətli və spekulyativ mənfəət güdür. Çünki pulun qeyri-sabitliyi, yəni bu ucuzlaşmalar faktor məhsuldarlığını aşağı salır, iqtisadi artıma mənfi təsir göstərir. Yüksək inflyasiya iqtisadiyyatında pul saxlamağın dəyəri artarsa, kapital sahibləri maliyyə bazarlarında malik olduqları puldan istifadə etməyə əl atacaqlar. İnflyasiyanın digər mənfi tərəfi isə tədiyyə balansının pisləşməsinə səbəb olmasıdır [5].

İnflyasiyanın səbəbləri çox məhəllidir. İnflyasiyanın əmələ gəlmə səbəbləri həm daxili, həm də xarici ola bilər. Xarici səbəblərə əsasən xarici ticarətdən mədaxilin azalması, xarici ticarət və ödəniş balansının mənfi saldosu aid edilir. Daxili səbəblərə ölkə, hökümət daxilində inflyasiyaya səbəb olan prosesləri aid etmək olar. Doğurdan da inflyasiyanı yaradan səbəbləri müəyyən etmək ən vacib məsələdir. İnflyasiyanı yaradan səbələrə aiddir:

- İqtisadiyyatın hərbiləşdirilməsi.
- Azad rəqabətin inhisarla əvəz olunması.
- Gəlirlərin yenidən bölgüsü.
- Pul krediti və vergi sahəsində düzgün olmayan siyasətin aparılması da inflyasiyaya səbəb olur.
- Büdcə kəsrinin mövcudluğu.
- Pul tədavülü qanununa əməl olunmaması.
- Sərmayə qoyuluşunun həcmi.
- Əmək haqqının əmək məhsuldarlığına nisbətən üstün artması.
- Xarici iqtisadi amillər

İqtisadiyyatın hərbiləşdirilməsi. Xüsusən iqtisadiyyatın hərbiləşdirilməsi ilə əlaqədar investisiyalar inflyasiya təhlükəlidir. Məsələn: milli gəlirlərin hərbi məqsədlər üçün qeyri-istehsal sahələrinə istifadə edilməsi, nəinki ictimai sərvətin itirilməsi eyni vaxtda hərbi maliyyələşdirmə, əlavə ödəniş qabiliyyətli tələb yaradır və mal əmtəə ilə təmin olunmamış pul vəsaiti artımını yaradır. Hərbi xərclərin artımı dünyanın əksər ölkələrində dövlət büdcəsinin xroniki kəsri və dövlət borclarının artmasının əsas səbəblərindən biridir. Hansı ki, onları örtmək üçün dövlət pul vəsaitini artırır.Buna müvafiq olaraq istehsal azalır və əmtəələrin qiyməti artmağa başlayır.

Büdcə kəsrinin mövcudluğu. Hər bir ölkənin büdcəsində az və ya çox dərəcədə büdcə kəsri problemi mövcuddur. Dövlət gəlirlərinin xərclərdən az olması nəticəsində dovlət büdcəsinin kəsrinin artması və büdcə kəsirinin yerinin doldurmaq üçün tədavülə yeni pul kütləsinin buraxılması inflyasiyaya səbəb olur.

Pul tədavülü qanununa əməl olunmaması. Real iqtisadiyyatda pulun miqdarı heç də pul tədavülü qanununun tələblərinə uyğun tənzimlənmir. Məlumdur ki, pul tədavülü mərkəzi bankın inhisarındadır. Zəruri halda dövlət pul kütləsinin təklifini artırır, bu da inflyasiyaya səbəb olur.

Sərmayə qoyuluşunun həcmi. Bir qayda olaraq, iqtisadiyyatda iri miqyaslı sərmayə qoyuluşları mövcud iqtisadi imkanlardan çox olduqda məcmu tələblə məcmu təklif arasında uyğunsuzluq baş verir. Belə ki, iri miqyaslı sərmayə qoyuluşları faiz dərəcəsinin səviyyəsindən, cari və gələcək gəlirlərdən asılıdır. Tədiyyə qabiliyyətli tələbin ödənilməməsi əmtəələrlə təmin olunmayan pul kütləsinin artmasına səbəb olur.

Əmək haqqının əmək məhsuldarlığına nisbətən üstün artması. İstehsalda əmək əmək məhsuldarlığının yüksəldilməsinə nisbətən ümumi əmək məsrəflərində canlı əmək məsrəflərinin xüsusi çəkisi artırır. Bu da ümumi istehsal xərclərində əmək haqqının xüsusi çəkisini artırır. Bütovlükdə istehsal xərcləri artdığından məhsulun qiyməti də yüksəlir və inflyasiya baş verir.

Xarici iqtisadi amillər. İnflyasiyanın baş vermə səbəbləri xarici amillərlə də əlaqədardı. Məlumdur ki, əmək bülgüsü nəticəsində ayrı-ayrı ölkələr dünya iqtisadiyyatına qovuşurlar.Bir ölkədə baş verən proseslər başqa ölkəyə də təsir edir.

İnflyasiya monetar və yaxud struktur xarakter daşıya bilər. İnflyasiyanı dövlət büdcəsinin defisiti və mal göndərənlərlə istehsalçıların inhisarları stimullaşdırır. Ona görə də inflyasiya prosesi ilə mübarizə metodları adətən kompleks xarakter daşıyır.[4]

**Nəticə**

İnflyasiya texniki inkişafı ləngidir və əmək məhsuldarlığının iqtisadi təsirini azaldır. Əslində, inflyasiya özü valyutanın alıcılıq qabiliyyətini aşağı salmaqla yanaşı, əhalinin gəlirlərini və yaşayış səviyyəsini aşağı salır.İnflyasiya olduqda, əhalinin nominal gəlirləri də mütləq şəkildə yüksəlir, lakin eyni zamanda, əldə edilən pulun miqdarı onun üçün alınacaq məhsul və xidmətlərin faktiki miqdarına nisbətdə azalır. Əhalinin əksəriyyətinin həyat səviyyəsi nəticədə aşağı düşür. İnflyasiya nəticəsində həyat səviyyəsi ən çox aşağı düşən qrup sabit gəlirləri olan qruplardır (məsələn, kreditorlar, depozit sahibləri, büdcə təşkilatının işçiləri).Sabit icarə haqqı alan torpaq sahibləri də inflyasiyadan mənfi təsirlənir, çünki zaman keçdikcə onların valyutası alıcılıq qabiliyyətini itirir.

Ümumiyyətlə, bazar iqtisadiyyatının ən təhlükəli xəstəliyi inflyasiya hesab edilir, məhz o səbəbə görə yox ki, o, tez bir zamanda yayılır. Eyni zamanda, onu iqtisadiyyatdan tamamilə kənarlaşdırmaq olduqca çətin bir prosesdir.

Milli istehsalın miqdarı inflyasiyadan təsirlənir. Məsələn, mübadilə və istehsalda hiperinflyasiya ölkədə istehsal olunan məhsulun faktiki miqdarının azalması, işsizliyin artması, müəssisələrin bağlanması və iflasla nəticələnir. İqtisadiyyatda gəlirlər qeyri-bərabər bölüşdürülür.

İnflyasiya ilə effektiv mübarizə aparmaq üçün adekvat pul-kredit siyasəti, təbii inhisarlar üçün məntiqli tariflər, balanslaşdırılmış dövlət büdcəsi olmalıdır.

**Ədəbiyyat siyahısı**

1.http://unec.edu.az/application/uploads/2016/07/M-mm-dova-G-ll-.pdf

2.https://banker.az/inflyasiyanin-novl%C9%99ri-v%C9%99-yaranma-s%C9%99b%C9%99bl%C9%99ri/

3.https://sg.docworkspace.com/d/sIFHO5JykAYyo_68G?sa=e1&st=0t

4.https://finfac.wordpress.com/2015/09/01/inflyasiyanin-s%C9%99b%C9%99bl%C9%99ri-v%C9%99-ona-qarsi-t%C9%99dbirl%C9%99r-antiinflyasiya/

5.TUĞLU, A. (2001). Enflasyon Türkiye'nin Kaderi Olmamalı, Yaklaşım Yayınevi, 101, 144-145

# BİZNESİN İDARƏ EDİLMƏSİ BÖLMƏSİ

## YAŞIL TƏDARÜK ZƏNCİRİ MENECMENTİ

**INTİQAM BƏŞİROV**

Bakı Mühəndislik Universiteti
İqtisadiyyat və idarəetmə fakultəsi/Biznesin idarəedilməsi kafedrası
*ibesirov@beu.edu.az*
BAKI, AZƏRBAYCAN

**XÜLASƏ**

Müasir qloballaşan dünyada davamlı rəqabət anlayışı bizneslər üçün daha vacib hala gəlib. Qloballaşan dünyada gündən-günə intensivliyini artıran rəqabət amili müəssisələrin bir-biri ilə rəqabət aparmaq üçün ətraf mühitə vurduqları zərərləri görməzlikdən gəlməsinə səbəb olub. Nəticədə müəssisələr tərəfindən havaya atılan zərərli qazlar, sulara buraxılan kimyəvi maddələr və bərk tullantılar kimi mənfi təsirlər təbiətə daimi ziyan vurub. Bu problemlərin öhdəsindən gəlmək üçün xüsusilə inkişaf etmiş ölkələr, beynəlxalq iri müəssisələr, qeyri-hökumət təşkilatları və ekoloji şüurlu istehlakçılar ətraf mühitə dəyən ziyanı minimuma endirmək üçün çalışırlar. Son illərin məşhur mövzusu olan "Ətraf mühit haqqında məlumatlılıq" bir çox təşkilatın gündəlik və strateji fəaliyyətlərini həyata keçirərkən diqqət yetirdiyi mövzuya çevrilib. Bu fəaliyyətlərdən biri yaşıl tədarük zəncirinin menecmentidir. Yaşıl tədarük zəncirinin idarə edilməsi həm biznesə, həm də ətraf mühitə fayda verdiyi üçün, o, bütün sektorlarda tətbiq edilməlidir. Bu araşdırmanın məqsədi Azərbaycan üçün yeni yanaşma hesab edilən yaşıl tədarük zənciri konsepsiyasını izah etmək və uğurlu yaşıl tədarük zəncirini təmin etmək üçün nəzərə alınması lazım olan məqamları vurğulamaqdır. həmçinin yaşıl təchizat zəncirinin idarə edilməsi təcrübələri haqqında məlumat vermək və bizneslərin hazırda yaşıl təchizat zəncirinin idarə edilməsində üzləşdiyi çətinlikləri və yaxud maneələri aşkar etmək məqsədi daşıyır.

**AÇAR SÖZLƏR:** *Tədarük zənciri menecmenti, yaşıl tədarük zənciri, yaşıl tədarük zənciri menecmentinin önündəki maneələr.*

**SUMMARY**

In today's globalizing world, the understanding of sustainable competition has become more important for businesses. The phenomenon of competition, which increases its intensity day by day in the globalizing world, has led businesses to ignore the damage they cause to the environment in order to compete with each other. As a result, negative effects such as harmful gases emitted by businesses into the air, chemicals and solid waste released into waters have caused permanent damage to nature. In order to cope with these problems, especially developed countries, international large enterprises, non-governmental organizations and environmentally conscious consumers are working to minimize the damage to the environment. "Environmental awareness", a popular theme in recent years, has become an issue that many organizations pay attention to while carrying out their daily and strategic activities. One of these activities is green supply chain management. Since green supply chain management benefits both the business and the environment, it should be implemented in all sectors. While businesses take care to structure their supply chain activities in a way that causes less harm to the environment, they achieve gains at social, economic and operational levels. The aim of this study is to explain the concept of green supply chain, which is considered a new approach for Azerbaijan, and to underline the points that need to be considered to ensure a successful green supply chain. It also aims to provide information about green supply chain management practices and to reveal the difficulties and/or obstacles that businesses currently face in implementing green supply chain management.

**KEYWORDS:** *Supply chaın management, Green supply chaın management, Obstacles to green supply chaın management.*

## GIRIŞ

Sənaye inqilabından 1960-cı illərə qədər tədarük müəssisələrin saxlama və daşınma kimi əsas ehtiyaclarını ödəməyə imkan verən logistika elementi kimi qəbul edilirdi. Bu prosesdə müəssisələr tədarükün digər istehsal funksiyalarına nisbətən daha az vacib olduğunu düşünülürdü və bunu daha çox saxlama və daşıma fəaliyyətini yerinə yetirən fiziki funksiya kimi ifadə edilirdi. 1970-ci illərdə müəssisələr tədarükün digər istehsal funksiyalarının hər birinin icrasına birbaşa təsir etdiyini başa düşdülər və bu funksiyanı daha effektiv idarə etmək üçün müəyyən səylər göstərdilər. İstehsal fəaliyyətlərindən maksimum fayda əldə etmək üçün müəssisələr, hər bir istehsal funksiyası üçün ayrıca həyata keçirilən daşıma, saxlama və logistika kimi elementlərin birlikdə idarə olunacağı müstəqil təchizat şöbəsi yaratmağa çalışmağa başladılar (Metz, 1998). Tədarük elementlərinin vahid mərkəzdən idarə edilməsi zaman keçdikcə müəssisələrə istehsal xərclərini azaltmağa və rəqabət üstünlüyü əldə etməyə imkan verdi. Əsas məqsəd fəaliyyətləri vahid mərkəzdən idarə etməklə xərcləri daha da azaltmağa çalışmaq idi. Bu səylər nəticəsində tədarük zəncirinin idarə edilməsinin ilk addımları saxlama, daşıma və müştəri xidmətləri kimi elementləri bir araya gətirərək atıldı (Bowersox, 1969). 1980-ci illərə qədər bizneslər qloballaşmanın gətirdiyi şiddətli rəqabət mühitində rəqiblərindən bir addım öndə olmaq üçün aşağı qiymətli, yüksək keyfiyyətli istehsal strategiyaları hazırlamalı oldular. Bu prosesdə müəssisələrə xərc və rəqabət üstünlüyü təmin edəcək təchizat zəncirinin idarə edilməsi elementi müəssisələrin strateji qərarlarında getdikcə daha çox iştirak etməyə başlamışdır.

1990-cı illərdə inkişaf edən istehsal texnologiyası ilə istehsal həcmlərində əhəmiyyətli artımlar oldu və bazarlara sıx rəqabət mühiti daxil oldu. Gərgin rəqabət mühitində istehlakçıların dəyişən tələblərinə cavab vermək və onların məmnunluq səviyyələrini maksimuma çatdırmaq üçün müəssisələr istehsal fəaliyyətlərində ciddi təkmilləşdirmələr aparmış və rəqabət elementi yarada biləcək hər cür alətlərdən istifadə etməyə başlamışlar. Müəssisələr başa düşdülər ki, istehlakçıların məmnunluq səviyyəsi onların istehlakçıların tələblərini ödəmək qabiliyyəti ilə birbaşa mütənasibdir və buna görə də istehlakçıların tələbatının istehsalı üçün tələb olunan xammalın tədarükündən tutmuş zəncirin bütün mərhələlərini effektiv şəkildə idarə etmələri lazımdır. Müəssisələrin zəncirdəki bütün elementlərdən səmərəli istifadə etmək səyləri zamanla tədarük zəncirinin idarə edilməsi konsepsiyasını ortaya qoydu (Svensson, 2002). Demək olar ki, əsas məqsəd səmərəlilik və səmərəli idarə olunan tədarük zənciri vasitəsilə xərcləri azaltmaq, müştəri məmnuniyyətini təmin etmək və rəqabət üstünlüyü əldə etməkdir.

1990-cı illərin sonlarına doğru istehsalın həcminin ciddi şəkildə artması nəticəsində yaranan ekoloji problemlərin meydana çıxmağa başladığı yeni bir dövr yaranmağa başladı. Təsərrüfat subyektlərinin şüursuz istehsal fəaliyyəti nəticəsində ətraf mühitin çirklənməsi və təbii sərvətlərin tükənməsi təhlükəsi getdikcə daha çox müzakirə olunan məsələyə çevrilərək ərtaf mühitin mühafizəsinə yönəlmiş yeni kollektiv ekoloji şüurun formalaşmasına zəmin yaradır. Cəmiyyətin bütün təbəqələrində yayılan bu məlumatlılıq səviyyəsi zaman keçdikcə müəssisələr üzərində ekoloji cəhətdən təmiz istehsal fəaliyyətləri ilə məşğul olmaq üçün təzyiq yaratmışdır.(Ojo vd, 2013). İstehlakçıların ekoloji şüurunun artması bizneslərə əhəmiyyətli təzyiq yaradaraq, təbii mühitin qorunması üçün bir çox ölkədə hüquqi tənzimləmələr yaradılmış və həm milli, həm də beynəlxalq səviyyədə bir çox ekoloji protokollar imzalanmışdır. Kyoto Protokolu, ISO 14000 Ətraf Mühitin İdarəetmə Sistemi, EMAS (Eko-idarəetmə və Audit Sistemi) imzalanmış ən mühüm ekoloji protokollar sırasındadır. Ətraf mühiti qorumaq üçün ölkələr və ya birliklər tərəfindən qəbul edilən bəzi qanuni tənzimləmələrə əlavə olaraq, müəssisələrin tədarükçülərindən ekoloji cəhətdən təmiz istehsal üçün əlavə tələblər də irəli sürdüyü görülür. Bristol-Myers Squibb, IBM və Xerox kimi şirkətlər özlərinin Çindən olan təchizatçılarına ISO 14001-ə uyğun ətraf mühitin idarə edilməsi sistemlərini inkişaf etdirmək üçün dəstək verirlər; Ford, GM və Toyota öz təchizatçılarından ISO 14001 sertifikatına malik olmasını tələb edir (Gemi, 2001).

Ətraf mühitin çirklənməsinin artması nəticəsində yaranan ekoloji problemlərin qarşısının alınmasına yönəlmiş bütün bu inkişaflar müəssisələri təbii mühitə həssas, sosial məsuliyyət şüuru ilə hərəkət edən, resurslardan daha səmərəli istifadə edən və daha az çirklənməyə səbəb olan ekoloji cəhətdən təmiz məhsullar istehsal etməyə məcbur edir (Carter et al., 2000). . İstehlakçıların artan ekoloji tələbləri, hüquqi tənzimləmələr və artan rəqabət şəraiti müəssisələrin istehsal vərdişlərində əhəmiyyətli dəyişikliklərə səbəb olub, müəssisələrin daha ətraf mühitə uyğun strategiyalar hazırlamasını və yaşıl təcrübələrə keçməsini zəruri edir (Linton vd, 2007). Bütün inkişaflar zamanla yaşıl tədarük zənciri menecmenti konsepsiyasının formalaşmasına yol açdı.

Yaşıl tədarük zəncirinin idarə edilməsi, istehlakçıların ehtiyaclarını ödəyəcək mal və xidmətlərin istehsalı üçün tələb olunan xammalın tədarükünün başlanğıcından başlayaraq zəncirin bütün proseslərində təbii mühitin qorunması məqsədinə əsaslanır. O, həmçinin ekoloji cəhətdən təmiz mal və xidmətlərin istehsalı üçün tələb olunan enerji və resurs istehlakını minimuma endirməklə ekoloji cəhətdən davamlı istehsal strategiyalarının yaradılmasına imkan verir. Ekoloji cəhətdən dayanıqlı istehsal strategiyalarının təmin etdiyi xərc üstünlüyü bizneslərə uzunmüddətli perspektivdə bazarlarda əhəmiyyətli rəqabət üstünlükləri verir.

Müəssisələrin yaşıl tədarük zəncirinin idarə edilməsi təcrübələrinə keçməsinə mane olan bir çox amillər var. Demək olar ki, ölkələrin inkişaf səviyyələri, rəqabət şəraiti, istehlakçıların yaşıl şüurluluq səviyyələri, hüquqi tənzimləmələr və qanunlar əsas şərtləndirən amillərdir. Yaşıl tədarük zəncirinin idarə edilməsinin mövcud vəziyyətini və onun uğurla həyata keçirilməsində qarşıya çıxan maneələri bir çox çalışmada öz əksini tapmışdır. Bu çalışmada da bu maneələrə toxunularaq tədqiqatın diyər hissəsində yaşıl təchizat zəncirinin idarə edilməsi konsepsiyası, yaşıl təchizat zəncirinin inkişaf prosesi, yaşıl təchizat zəncirinin idarə edilməsi konsepsiyası, yaşıl tədarük zəncirinin idarə edilməsi fəaliyyətləri, yaşıl təchizat zəncirinə doğru hərəkətin səbəbləri və ekoloji idarəetmə yanaşmaları vurğulanır. Növbəti bölmədə yaşıl təchizat zəncirinin idarə edilməsinə maneələr müzakirə edilir və nəhayət, müzakirə və nəticə bölməsi ilə yekunlaşdırılır.

## YAŞIL TƏDARÜK ZƏNCIRI MENECMENTI

### Yaşıl tədarük zənciri menecmenti fəaliyyətləri

Yaşıl tədarük zənciri menecmenti fəaliyyətləri aşağıdakə şəkildə verildiyi kimi təsnif edələbilər(Büyüközkan,Vardaloğlu,2008) .




Ənənəvi tədarük zəncirinə zəncirinə yaşıl sifəti əlavə edilməsi ilə təchizat zəncirinin genişlənməsi ilə yaşıl satınalma, yaşıl istehsal/materialın idarə edilməsi, yaşıl paylama/marketinq, tərs logistika kimi yeni ekoloji anlayışlar formalaşmışdı. (Hervani vd. , 2005).

Yaşıl satınalma tədarük zəncirindəki bütün elementlərin effektiv və uğurlu idarə olunması baxımından son dərəcə vacibdir. Yaşıl satınalma tədarükçülərlə ilk əlaqələrin başlanğıc nöqtəsini təşkil etdiyindən, sonrakı elementlərə birbaşa təsir göstərir. Yaşıl satınalma fəaliyyətlərinin əsas məqsədi ətraf mühitin idarə edilməsi anlayışı çərçivəsində təkrar istifadə edilə bilən və ya təkrar emal edilmiş hissələrin alınmasıdır (Nishat, 2010). Yaşıl satınalma tədarükçülərin seçilməsi, qiymətləndirilməsi və inkişafı da daxil olmaqla ekoloji problemlər yarada biləcək təhlükələrə qarşı qabaqlayıcı tədbirlərin görüldüyü strateji satınalma fəaliyyətlərinə aiddir .

Yaşıl istehsal, istehsal fəaliyyətinin bütün proseslərində ətraf mühitə zərərin qarşısını alacaq girişlərdən istifadə edərək tullantı, enerji və xammal istehlakını minimuma endirəcək şəkildə istehsal fəaliyyətinin dizaynı və inkişafıdır. Bu, yeni ekoloji cəhətdən təmiz texnologiyalarla istehsal materiallarının səmərəli və məhsuldar istifadəsi, təkrar emal, yenidən istehsal və təkrar istifadə imkanlarının qiymətləndirilməsidir (Sarkis & Rasheed, 1995). Əsas məqsəd ekoloji cəhətdən təmiz istehsal sistemlərinin layihələndirilməsi yolu ilə istehsal fəaliyyəti nəticəsində baş verə biləcək ətraf mühitə zərərin qarşısını almaqdır (Ninlawan vd., 2010).

Yaşıl paylama tədarük zəncirində paylama funksiyalarının həm irəli, həm də geriyə daşınması, paylanması, nəzarət və ölçü sistemlərinin ətraf mühitə ən az zərər verəcək şəkildə müəyyən edilməsi prosesini əhatə edir. İstehlak olunan yanacağın ətraf mühit amillərini, daşınma tezliyini, paylama məntəqələrini və qət edilən məsafələri nəzərə alaraq tədarük zəncirinin bütün proseslərini əhatə edən nəqliyyat vasitələrinin dizaynıdır (Sarkis,2003), .

Yaşıl qablaşdırma məhsulların qablaşdırılmasında istifadə olunan qablaşdırmaların təkrar emala yararlı olmasını və təbii mühitə zərər verməməsini, bağlamaların təbii mühitdə asanlıqla həll olunaraq təbiətlə qarışmasını və qablaşdırmaların təbii mühitə uyğun ölçülərdə dizayn edilməsini hədəfləyir. daha az yer tutur və bununla da qablaşdırma və daşıma xərclərini azaldır ( Zhang & Zhao, 2012).

Əks logistika "məhsulların və məlumatların istehlak nöqtəsindən mənşə nöqtəsinə axınını təmin etmək üçün onların dəyərinin bərpa edilməsi və ya lazımi şəkildə məhv edilməsi üçün planlaşdırma, həyata keçirmə və nəzarət fəaliyyətləridir" (Nakıboğlu, 2007). İstehsal fəaliyyəti nəticəsində yaranan istehsal tullantılarının, nasaz tullantıların, logistik tullantıların, qırıntıların və istifadə müddəti ötmüş istehlak tullantılarının ətraf mühitə təsirini azaltmaq üçün təkrar emalı, təkrar istehsalı, təkrar istifadəsi və utilizasiyasıdır.

Təkrar emal, müəyyən fiziki və ya kimyəvi proseslər nəticəsində istehsal fəaliyyətlərində istifadə olunan xammalın, material tullantılarının və qırıntıların istehsalda təkrar istifadəyə hazır vəziyyətə gətirilməsi proseslərini əhatə edir (Beamon, 1999).

Yenidən istehsal istehsal fəaliyyəti nəticəsində yaranan tullantıların təkrar emalı və istehsala daxil edilməsidir (Ghobakhloo vd., 2013).

Yenidən istifadə müddəti keçmiş məhsulların təkrar istifadəsi məqsədi ilə heç bir əlavə emal edilmədən işlənmiş məhsulların paylanması və ya satışıdır (Büyüközkan &Vardaloğlu, 2008).

Utilizasiya təkrar emal olunmayan materialların utilizasiyası ilə ətraf mühitə təsirin azaldılmasıdır. İstehsalat fəaliyyətlərində əmələ gələn təkrar emal oluna bilməyən tullantıların, qırıntıların və ya saxlama müddəti ötmüş məhsulların ətraf mühitə dəyməsinin qarşısını almaq məqsədilə məhv edilməsidir

**Yaşıl tədarük zəncirinə doğru irəliləmənin səbəbləri**

Ədəbiyyatı araşdırdığımızda biznesləri yaşıl tədarük zəncirinə yönəldən bir çox fərqli motivasiya mənbəyinin olduğu görülür. Ətraf mühitin çirklənməsinin artması, təbii ehtiyatların tükənmə təhlükəsi, istehlakçılar və cəmiyyətin təzyiqləri, hökumətlərin ekologiya siyasətləri və bir çox oxşar makro və mikro dəyişənlər əsas motivasiya mənbəyi kimi ifadə edilə bilər. Bu motivasiyaları ümumiyyətlə aşağıdakı kimi sıralamaq olar.

• Təbii ehtiyatların tükənməsi və çirklənməsi təhlükəsi ilə bağlı yaranan ekoloji problemlərin qarşısının alınması üçün həm istehlakçıların, həm də qurumların səylərinin artırılması.

• İstehlakçıların təbii ətraf mühitin qorunması istiqamətində artan məlumatlılıq səviyyələri müəssisələrə təzyiq göstərir.

• Ətraf mühitin mühafizəsinə yönəlmiş qanunlar, qanunlar və qaydalardakı dəyişikliklərin gətirdiyi öhdəliklərə görə şirkətlər ağır sanksiyalara məruz qalırlar.

• Yaşıl təcrübələr müəssisələrə resurslara qənaət etməklə məhsuldarlığını artırmağa imkan verir (Porter & van der Linde, 1995; Van Hoek, 1999).

• Təbii ehtiyatlardan istifadə hüquqlarını gələcək nəsillərə ötürmək üçün enerji istifadəsini minimuma endirməklə resurslardan həddindən artıq və israfçı istifadə etmədən davamlı inkişafı təmin etmək üçün səylərin artırılması.

• Yaşıl təchizat zəncirinin idarə edilməsi təcrübələrini qəbul etmiş qlobal müəssisələr kommersiya əməkdaşlığı və sazişlər üçün təchizatçılarına və ya tərəfdaşlarına yaşıl təcrübələr tələb edirlər.

• Ətraf mühiti qorumaq üçün inkişaf etdirilən yaşıl təcrübələr müəssisələrin fəaliyyətinə, xərclərinə və gəlirliliyinə əhəmiyyətli töhfələr verməklə rəqabət üstünlüyü təmin edir.

• Ətraf mühitin çirklənməsi və təbii sərvətlərin tükənməsi təhlükəsi barədə cəmiyyətlərdə məlumatlılığın artması nəticəsində kollektiv ekoloji şüurun və ekoloji təzyiqlərin formalaşması.

• Ətraf mühitin mühafizəsi üçün hökumətlər, birliklər və qeyri-hökumət təşkilatları tərəfindən təzyiqlərin artması

• Əks logistika fəaliyyətlərin müəssisələrə xammal daxilolma xərclərini yaxşılaşdırmağa imkan verir.

**Yaşıl tədarük zənciri menecmenti tətbiqlərinin pnündəki maneələr**

Müəssisələrin istehsal fəaliyyəti nəticəsində yaranan tullantılar və təbii mühitə atdıqları zərərli qazlar və kimyəvi maddələr səbəbindən ekoloji problemlər yaranmağa başlayıb. Təbii mühitə artan ziyan və ehtiyatların tükənmək təhlükəsi insanların həyat şəraitini günü-gündən çətinləşdirir. Təbii mühitlə bağlı bu mənfi hallar biznesləri, hökumətləri və istehlakçı qruplarını təbii mühiti qorumaq üçün tədbirlər görməyə səfərbər etdi. Ekoloji problemlərin əksəriyyəti müəssisələrin istehsal fəaliyyətindən yaranır. Ona görə də müəssisələr təbii mühitin mühafizəsi üçün daha çox məsuliyyət daşımalıdırlar. Bununla belə, müəssisələrin yaşıl təcrübələrə keçməsinə mane olan bir çox amillər var. Bu amillər müəssisələrin fəaliyyət göstərdiyi makro və mikro mühit şəraitindən asılı olaraq dəyişir. Yaşıl təchizat zəncirinin idarə edilməsinə mane olan amilləri müəyyən etmək üçün ədəbiyyatda çoxlu araşdırmaların aparıldığını görmək olar. Aparılan araşdırmalara əsasən, tədqiqatçıların araşdırmalarında müəyyən etdiyi ümumi maneələr aşağıdakı sadalanmışdır(Yaprak &Doğan,2019).

**Bilik və təcrübənin olmaması**

Bu tədqiqat işində yerli və xarici ədəbiyyatlardan, mövzu ilə əlaqədar elmi məqalə, jurnal və elektron qəzetlər və s. resurslardan istifadə istifadə edilmişdir. Bir sıra müxtəlif təşkilatların internet portallarında təqdim olunmuş faydalı məlumatlar bu buraxılış işinin informasiya bazası arasında öz yerini tapmışdır. Tədqiqat mövzusu üzrə daha əvvəl aparılmış olan elmi araşdırmalar və digər elmi ədəbiyyatlardan da geniş istifadə edilmişdir.

## TƏDQİQATIN METODLARI

Tədqiqat işinin əsas aparılma metodu kontent analiz araşdırma üsuludur. Bununla yanaşı, müqayisəli təhlil üsulu tədqiqat işinin nəzəri əsasını təşkil edir. Həmçinin qeyd etmək lazımdır ki, tədqiqat işində qeyd olunan məsələlər beynəlxalq iqtisadiyyat sahəsinin əsas istiqamətlərinin struktur, funksional, məntiqi, müqayisəli təhlili, statistik, səbəb-nəticə və digər metodologiyalarından istifadə etməklə həll edilmişdir.

## PROBLEMİN TƏHLİLİ

İnnovasiya sözünün latın mənşəyi *"innovatus"* sözündən götürülüb. Bu sözün mənşəyi *"sosial, mədəni və inzibati mühitdə yeni metodlardan istifadənin başlanğıcı"* deməkdir. Bu gün innovasiya dilimizə texniki termin kimi daxil olub, dünya dillərində möhkəmlənib. Lüğət mənasında qeyd olunduğu kimi, innovasiya innovasiyanın özündən və diferensiallaşmadan və dəyişmədən asılı olaraq iqtisadi və sosial prosesi deyil, yeniliyin nəticəsini təsvir edir (Əliyev, 2011).

İqtisadçı və politoloq J.Şumpeter ilk dəfə innovasiyanı *"inkişafın hərəkətverici qüvvəsi"* kimi müəyyən etmişdir. Şumpeter innovasiyanı müştərilərə hələ məlum olmayan məhsulun və ya mövcud məhsulun yeni xüsusiyyətinin tətbiqi, yeni istehsal metodunun tətbiqi, yeni bazarın açılması, məhsulların tədarükü üçün yeni mənbənin kəşfi kimi müəyyən etmişdir. Bundan əlavə, Şumpeter bildirmişdir ki, sahibkarlar öz innovativ rolları ilə bazarda tarazlığı pozur və iqtisadiyyatda daimi dinamizm yaradırlar (Eroğlu, 2019).

İnnovasiya bir konsepsiya olaraq, yeni təqdim edilmiş ideyaların dəyər yaradan nəticələrə (məhsullar, üsullar və ya xidmətlər kimi) çevrilməsi prosesini təsvir edir. İnnovasiya prosesinin sonunda keçmişlə müqayisədə daha çox dəyər yaranır, çünki izafi gəlirlər meydana çıxır və innovasiya

bu nəticədə baş verən dəyişikliklərə aiddir (Uzkurt, 2017). İnnovasiyanın qısa tərifini versək, onun bizneslərdə əlavə dəyər yaratmağa yönəlmiş fəaliyyət kimi innovasiya etmək və bununla da dəyişiklik gətirmək gücü olduğunu söyləmək mümkündür. İnnovasiya bahalı və riskli fəaliyyətdir və biznesin nəticələrinə müsbət təsir göstərir, eyni zamanda bazar riskinə məruz qalma, artan xərclər və işçilərin narazılığı kimi mənfi nəticələrə malikdir (Atakişiyev, Süleymanov, 2004).

İnnovasiya prosesinin birinci mərhələsi olan ideyanın yaradılması və seçimi yeni ideyalar üçün daxili və xarici tədqiqatlara və bu ideyaların innovasiya üçün seçilməsinə aiddir. İdeyalar tədarükə əsaslanan texnologiya təkanları və ya tələbə əsaslanan bazar təkanları nəticəsində formalaşa bilər (Eroğlu, 2019). Bu ideyaların texnologiyası və bazar mümkünlüyünün qiymətləndirilməsindən sonra ikinci mərhələ yeni ideyaların texnoloji reallaşdırılmasını və onların hədəf bazarda potensial iqtisadi uğurlarının qiymətləndirilməsini nəzərdə tutur. Son mərhələ yeniliyin istehsalı və işə salınmasıdır. İnnovasiyaları dörd müxtəlif kateqoriyaya bölmək mümkündür. Bunlar məhsul innovasiyası, proses innovasiyası, marketinq innovasiyası və təşkilati innovasiyalardır (Oslo Manual, 2005):

***Məhsul innovasiyası*** yeni və ya əhəmiyyətli dərəcədə təkmilləşdirilmiş mal və ya xidmətin təqdim edilməsidir. Məhsulun innovasiyası məhsulun texniki xüsusiyyətləri, komponentləri və materialları, proqram təminatı, istifadəçi rahatlığı və digər funksional xüsusiyyətlərin əhəmiyyətli təkmilləşdirmələrini əhatə edir. Məhsul innovasiyasında yeni bilik və ya texnologiyadan istifadə oluna bilər, mövcud bilik və texnologiyalara yeni istifadələr əlavə oluna bilər və ya bunların birləşməsinə əsaslana bilər. *"Məhsul"* termini həm mallara, həm də xidmətlərə aiddir. Məhsul innovasiyası həm bazara yeni mal və xidmətlərin təqdim edilməsini, həm də mövcud mal və xidmətlərin funksional və ya istifadəçi xüsusiyyətlərində əhəmiyyətli təkmilləşdirmələri əhatə edir.

***Proses innovasiyası*** yeni və ya əhəmiyyətli dərəcədə təkmilləşdirilmiş istehsal və ya çatdırılma metodunun tətbiqidir. Bu yeniliklər; texnika, avadanlıq və ya proqram təminatında əhəmiyyətli dəyişiklikləri əhatə edir. Proses innovasiyası haqqında danışmaq üçün yeni və ya əhəmiyyətli dərəcədə təkmilləşdirilmiş istehsal və ya çatdırılma metodu həyata keçirilməlidir. Proses innovasiyaları xərcləri azaltmaq, keyfiyyəti yaxşılaşdırmaq və ya yeni və ya əhəmiyyətli dərəcədə təkmilləşdirilmiş məhsulların istehsalı və ya yayılması üçün tətbiq oluna bilər. Proses innovasiyası məhsulun keyfiyyətinin yaxşılaşdırılmasını, əhəmiyyətli dərəcədə təkmilləşdirilmiş məhsulların yaradılmasını, istehsal və ya çatdırılmada, mallarda və istehsal texnikasında, material və avadanlıqlarda xərclərin azaldılmasını əhatə edir.

***Marketinq innovasiyası*** məhsul dizaynında və ya qablaşdırılmasında, məhsulun yerləşdirilməsində, məhsulun təşviqində və ya qiymətində əhəmiyyətli dəyişiklikləri nəzərdə tutan yeni marketinq formasıdır. Marketinq innovasiyaları, müəssisələrin satışını artıran hər növ marketinq marketinqin yeni formalarıdır. Məhsulun funksional xüsusiyyətlərini dəyişmədən forma və görünüşünün dəyişdirilməsi də marketinq yeniliklərindir. Marketinq yeniliklərinə misal olaraq onlayn yemək sifarişi, hər cür bilet və bayram paketlərinin alınması, televiziya seriallarında məhsul yerləşdirmələri göstərmək olar.

***Təşkilati innovasiya*** biznes fəaliyyətində, biznesin təşkilində və ya biznesin xarici əlaqələrində yeni təşkilati metodun tətbiqidir. Təşkilati innovasiya təkrarolunmazdır, təşkilata xasdır və dəyərli əsas qabiliyyətdir və beləliklə, şirkətə uzunmüddətli perspektivdə rəqabət üstünlüyü təmin edir. Təşkilati innovasiyalar üzrə təlimə həmçinin maşın və avadanlıqların, digər xarici biliklərin və digər əsas vəsaitlərin əldə edilməsi daxildir.

İnnovasiya şirkətlər üçün dəyər yaradan və davamlı inkişafı təmin edən mühüm amildir. İnnovasiya təşəbbüsləri daha çox işçilərin bilik, təcrübə və təşkilatlarına bağlılıqlarına əsaslanır. Qlobal rəqabət mühitində şirkətlərin yeni biliklər yaratmaq bacarığı rəqabət üstünlüyünün yeganə etibarlı mənbəyidir (Atakişiyev, Süleymanov, 2004). İnformasiya yeni məhsulların/proseslərin və yeni texnologiyaların yaradılmasında əsas girişdir. Qlobal dünyada yaşamaq üçün şirkətlər daim yeni məhsullar/proseslər və ya yeni texnologiyalar inkişaf etdirməli olurlar və buna görə də daha çox məlumat tələb edirlər. Çünki şirkətin innovasiya qabiliyyəti onun bilik qabiliyyəti ilə müəyyən edilir (Yeşil, 2018).

Strateji insan resurslarının idarə edilməsi sahəsi şirkətlər üçün çox vacib məsələlərə potensial təsir göstərdiyinə görə son illərdə bir çox tədqiqatçıların diqqətini cəlb etmişdir. Qeyd etmək lazımdır ki, təşkilatların innovativ xüsusiyyətlərinə insan resurslarının yeni məhsul və proseslərin yaradılması üçün biliklərlə yerləşdirilməsi və onların bu prosesdə ixtisaslaşması nəticəsində əldə olunacaqdır. Bu

səbəbdən, strateji insan resursları təcrübələrinin bu bilik və təcrübəyə əsaslanan yanaşmanı əldə edərək innovativ fəaliyyətlərə kömək edəcəyi qiymətləndirilir (Trott, 2017). Bununla yanaşı, məlumat əldə etmək çox çətin bir fəaliyyət olsa da, informasiyanın qiymətləndirilməsi və ona malik olan insan resurslarının idarə edilməsi də eyni dərəcədə vacib məsələdir. Çünki biliklərin idarə edilməsi fərdi səviyyəyə malik olan bilik və təcrübə vasitəsilə şirkətlərin nou-hau xüsusiyyətlərini aktiv şəkildə idarə etməklə aktiv təşviq və dəyər yaratmağı nəzərdə tutur. Bu səbəbdən, biliklərin idarə edilməsinin strateji insan resursları təcrübələrinə və innovasiya performansına təsir edəcəyi qiymətləndirilir (Yeşil, 2018).

İnsan resurslarının idarə edilməsi təcrübələri ixtisaslı işçi qüvvəsinin təmin edilməsini və biznes məqsədlərinə uyğun olaraq bu işçi qüvvəsinin səmərəli istifadəsini təmin etməklə müəssisələrə əhəmiyyətli rəqabət üstünlükləri verir. Biznesin innovasiya qabiliyyətinə təsir edən mühüm amillərdən biri işçilərin fərdi yaradıcılığıdır. Bu səbəbdən işçilərin işə qəbulu və seçimində işçilərin yaradıcılıq qabiliyyətləri qiymətləndirilməli və biznesin innovasiya potensialını artıracaq işçilər yerləşdirilməlidir. Yaradıcı və yenilikçi işçilərin seçilməsi təşkilatın innovasiya potensialına müsbət töhfə verə bilər, həmçinin təlimlərə sərf olunan vaxtı və xərcləri azaldır.

Təlim işçilərə öz işlərini səmərəli şəkildə yerinə yetirmək üçün lazım olan bilik, bacarıq və davranışları təmin etməkdir. Təlim müxtəlif iş və ya rollar üçün iş yerində formal öyrənmə təmin edir. Təlim işçilərə və ya qruplara biznesin məqsədlərinə çatmaq üçün hazırda yerinə yetirdikləri vəzifələri və ya onlara tapşırılan digər vəzifələri uğurla yerinə yetirmək üçün həyata keçirilən tədbirlər məcmusudur (Atakişiyev, Süleymanov, 2004). Təlim işçilərin yeni məhsulun inkişafı üçün vacib olan bilik və bacarıqlarını artıra bilər. O, həmçinin təşkilatlarda öyrənməyi asanlaşdırır. Təşkilatların innovasiya imkanlarına birbaşa töhfələri ilə yanaşı, İnsan Resurslarının idarə edilməsi xüsusilə təlim təcrübələri vasitəsilə innovasiyaların idarə edilməsini dolayı yolla dəstəkləyir. İnsan resursları baxımından işçilərin bacarıqlarının artırılması yüksək ixtisaslı iş təcrübələrinin yayılmasına kömək edir və beləliklə, müəssisələr daha məhsuldar artıma nail ola bilərlər (Güney, 2019).

Motivasiya işçilərin öz istək və istəkləri ilə səy göstərərək müəyyən təşkilati məqsədlərə nail olmaq bacarığıdır. Motivasiya təşkilatların və işçilərin uğuruna təsir edən amillərdən biridir. Motivasiya işçilərin səmərəli, həvəslə və effektiv işləməsini təmin etməyə və onların işə nail olmaq istəyi və istəklərini yaratmağa kömək edir. Təşkilatlarda motivasiya fəaliyyətlərinin əsas məqsədi biznes məqsədlərini işçilərin məqsədləri ilə uyğunlaşdırmaqdır. Beləliklə, işçilər fəaliyyətlərini təşkilat məqsədləri istiqamətində həyata keçirərkən həm özlərinə, həm də təşkilata fayda gətirirlər. Bu səbəbdən təşkilatlarda motivasiyanı artıran müxtəlif amillərdən istifadə edilir. Bununla belə, hər bir təşkilatda həmişə eyni nəticəni göstərən motivasiya faktoru yoxdur; bir işçini motivasiya edən amil digər işçini motivasiya etməyə bilər (Uzkurt, 2017).

İnnovasiya prosesi ümumiyyətlə uzun, mürəkkəb, qeyri-müəyyən və multidissiplinar təcrübələri əhatə etdiyi üçün şirkətlər korporativ səviyyədə innovasiyanın əhəmiyyətinə üstünlük verməli və innovativ davranışları qiymətləndirmək üçün formal qiymətləndirmə sistemləri yaratmalıdırlar. Fəaliyyətin qiymətləndirilməsi işçilərin ən yaxşıdan ən pisə doğru sıralamaq əvəzinə, əvvəlcədən müəyyən edilmiş obyektiv meyarlarla müqayisə və ölçülməsi yolu ilə iş yerindəki fəaliyyətinin qiymətləndirilməsi prosesidir (Trott, 2017). Bu sistemdə işçilər düzgün qiymətləndirildiyinə inandıqda məmnun qalacaq və performansla bağlı rəy bildiriləcək və bu istiqamətdə yaradıcı və innovativ ideyalar inkişaf etdiriləcəkdir. Bundan əlavə, fərdi və təşkilati səviyyələrdə nailiyyətlər müvafiq mükafat sistemləri ilə mükafatlandırılaraq innovativ fəaliyyətləri daha da həvəsləndirir. Həm daxili, həm də xarici mükafat sistemlərinin çətin və mürəkkəb iş mühitlərində yeni ideyaların və yeni məhsulların üzə çıxarılmasında çox mühüm funksiya olduğunu söyləmək mümkündür (Şengül, 2015).

Yuxarıda verilmiş nümunələr çərçivəsində şirkətlərdə strateji insan resursları təcrübələrinin innovasiyaların inkişaf etdirilməsində və bu istiqamətdə davranışların yaradılmasında mühüm element olduğu görülür. Kadr seçimi, təlim, iştirak, performansın qiymətləndirilməsi və mükafatlandırma sistemləri kimi effektiv strateji İnsan Resursları üzrə təcrübələri ilə şirkətlərin yeni məhsullar, yeni proseslər, yeni düşüncələr və yeni idarəetmə kimi innovativ nəticələrə nail ola biləcəyi düşünülür (Yeşil, 2018). Ümumiyyətlə, səlahiyyəti olan işçilər öz fikirlərini bildirərək biznesə töhfə verirlər, əks halda inkişaf olmayacaq. İnnovasiya sınaq və səhvləri, uğurları və uğursuzluqları ehtiva etdiyinə görə, iş müstəqilliyi işçilərə hətta uğursuzluqlar qarşısında belə yeni ideyaları sınamaq üçün bir yol verir. İşçilərin çevik bir şəkildə idarə edilməsi innovativ işçilərə dərin təsir göstərir. Təşkilat menecerləri

vasitəsilə işçiləri ideyalar irəli sürməyə həvəsləndirmək və dəvət etməklə, hər bir işçinin potensial yaradıcı olduğu mesajı göndərilir. İnsan Resursları təcrübələri işçilər üçün daha çox məsuliyyət təmin etməklə, daha yaxşı işçi-təşkilat harmoniyasına və daha çox münaqişələrin həllinə diqqət yetirərək, *"ənənəvi biznes modeli"ndən "yüksək texnologiya modeli"nə* keçidin ehtiyaclarını qarşılayır (Əliyev, 2011).

**NƏTİCƏ**

Dünya iqtisadiyyatlarında baş verən dəyişikliklər, qloballaşma və qlobal rəqabət, ənənəvi sənayelərin sıradan çıxması və yenilərinin yaranması, özəlləşdirmənin artması, ittifaqların gücünün azalması, texnoloji inkişaflar, sosial-iqtisadi və siyasi proseslər təşkilatların idarəetmə strategiyalarının dəyişməsinə səbəb olmuşdur. İstehsal yönümlü sənayenin müştəri yönümlü yanaşmalarla xidmət sektoruna önəm verən bir struktura çevrilməsi təşkilatların idarə edilməsində böyük dəyişikliklərə şərait yaratmışdır. Qeyd etmək lazımdır ki, biznes müəssisələrinin artan kadr xərcləri və davamlı rəqabət baxımından satış və marketinq, satış sonrası xidmətlər, reklam və tanıtım strategiyalarının əhəmiyyəti kadrların sərfəli şəkildə yerləşdirilməsini zəruri etmişdir. Biznes müəssisələrinin imkanları rəqabət üstünlüyü üçün əsasdır. Xüsusilə, insan düşüncəsinə əsaslanan idarəetmə yanaşması ilə təşkilatın əsas imkanlarının üzə çıxarılması getdikcə daha çox əhəmiyyət kəsb edir. Təşkilatlarda insan resurslarının effektiv və səmərəli idarə edilməsi və performans yanaşmasının insan yönümlü olması strateji idarəetmə yanaşması ilə inteqrasiya edən siyasətin işlənib hazırlanması ideyasını zəruri etmişdir.

İnsan resurslarının səmərəli bir şəkildə idarə edilməsi, təşkilatların strateji idarəçiliyi ilə lazımi ahəngdarlığın təmin edilməsi, rəqabət üstünlüyü, fürsət və təhlükələrin proaktiv şəkildə proqnozlaşdırılması və lazımi strateji planlaşdırmanın aparılması bugünkü inkişaf edən və dəyişən iqtisadi nizamda insan resurslarının strateji planlaşdırılması zərurətini meydana gətirmişdir. Müştəri və xidmətin əhəmiyyəti, iqtisadiyyatın təkcə istehsalla məhdudlaşmaması, idarəetmə mütəfəkkirlərinin irəli sürdüyü fikirlərlə üzə çıxıb. Bu ideyalarla insanları maşın kimi görmək ideyası bir kənara qoyuldu və biznesdə səmərəliliyi artırmaq üçün davranış elmləri inkişaf etdirilmişdir. Yeni ideyaların yaranması və həyata keçirilməsi prosesində yaranan problemlərin həllində mühüm rol oynayan xidmət innovasiya davranışı işçilərin davranışlarına təsir göstərir. Odur ki, işçinin innovasiya yönümlü davranışında təsirli olan amillərin müəyyən edilməsi performans, məhsuldarlıq və insan resurslarının idarə edilməsi kontekstində olduqca vacib əhəmiyyət kəsb edir. İnsan resurslarının idarə edilməsində strategiyaların yaradılmasında xidmət innovasiyalarının nəzərə alınması təşkilatın uzunmüddətli yaşaması və insanlara əsaslanan strategiyaların inkişafı üçün vacibdir. Səmərəlilik əsasında biznes strategiyasının qurulması sistemli məhsul dəyəri ilə istehlakçıların məhsula verdiyi dəyər arasında aşağı fərqdən asılıdır. Təşkilatın bütün struktur bölmələrinin reaktiv reaksiya vermə qabiliyyəti strateji insan resurslarının effektiv idarə edilməsindən asılıdır.

**İstifadə edilmiş ədəbiyyat:**


1. Atakişiyev M., Süleymanov Q. (2004). İnnovasiya menecmenti. Bakı, s.56-63.
2. Dessler G. (2000). Human Resource Management. 8th Edition, Prentice Hall, New Jersey, p.92-104.
3. Eroğlu İ. (2019). Yeni dünya düzeninde öğrenen örgütler, değişim ve inovasyon yönetimi. Bilişim Sistemleri ve Yönetim Araştırmaları Dergisi 1 (1). s. 51-57
4. Əliyev T.N (2011). İnnovasiyanın təşkili və idarəedilməsi prosesi. Bakı, s.118-123.
5. Güney, F. (2019). Stratejik insan kaynakları yönetimi ve değişim yönetimi kapsamında Jandarma Teşkilatının reorganizasyon ihtiyacına yönelik bir araştırma. (Doktora Tezi). Pamukkale Üniversitesi Sosyal Bilimler Enstitüsü. Denizli, s.198-204.
6. Oslo Manual. Guidelines for collecting and interpreting innovation data. Third edition. A joint publication of OECD and Eurostat, 2005.
7. Şengül, R. (2015). Örgütsel Değişim Faktörü Olarak İnovasyon ve Kamu Yönetimi. Eskişehir Osmangazi Üniversitesi İİBF Dergisi, 10(2), 141- 151
8. Trott, P. (2017). Innovation Management and New Product Development, Sixth Edition. Pearson Education Limited, p.298-307.
9. Uzkurt, C. (2017). Yenilik (İnovasyon) Yönetimi ve Yenilikçi Örgüt Kültürü, 2. Baskı, İstanbul: Beta, s.35-44.
10. Yeşil, A. (2018). Örgütlerde Değişimin Önemi ve Değişim Yönetimi Üzerine Kavramsal Bir Değerlendirme. Uluslararası Akademik Yönetim Bilimleri Dergisi. Cilt 4, Sayı 5, s.307-323.
11. Digital Technologies and Its Impact on the Quality of Human Resources in Azerbaijan (In the Case of Construction Industry in Line with Education System) Hasanov, K., Shefer, O. Lecture Notes in Civil Engineering, 2023, 299, pp. 689–696

# DEVELOPMENTS IN HR: BRIDLING THE FORCE OF ARTIFICIAL INTELLIGENCE AND CLOUD ARRANGEMENTS

**MAHAMMAD AZIZI-MESHKIN**
Ada University
MPA/Public Affairs
*azizi.meshkin.m@gmail.com*
BAKU, AZERBAIJAN

**ABSTRACT**

In a time of digital revolution, artificial intelligence (AI) and cloud computing are two revolutionary forces that are causing a significant upheaval in the human resources (HR) environment. This white paper explores how various technologies are always interacting and how that has a significant influence on HR procedures. The first section of the study explores HR history. Real-world case studies demonstrate the practical advantages of AI in HR, from AI-powered recruiting procedures that improve applicant selection to predictive analytics that support well-informed choices. A key component of contemporary HR technology, cloud solutions for HR, are given careful consideration. We examine the benefits of cloud-based HR solutions, such as their affordability, scalability, and flexibility. Additionally, companies who have used cloud technologies to streamline HR processes are highlighted in this area. The paper highlights the benefits of combining AI and cloud technologies with HR, with a focus on how cloud platforms make it easier to deploy AI-driven HR solutions. It looks at moral issues, dealing with prejudice and equity in AI procedures and guaranteeing data security and privacy in cloud-based HR systems. HR specialists are essential to this transforming process. In order to optimize the strategic effect of HR services, the paper offers ideas for upskilling and reskilling HR teams as they navigate the changing duties of teams operating in an AI and cloud-centric HR environment. Technology, demonstrating the evolution of HR practices from manual processes to complicated digital ecosystems.

**KEY WORDS: AI, HR, INNOVATION, TECHNOLOGY**

## INTRODUCTION

The fields of artificial intelligence (AI) and cloud computing, as well as human resources (HR), have all seen revolutionary changes. The use of artificial intelligence (AI) and cloud-based HR technologies has revolutionized workforce management, streamlined operations, and improved employee engagement for enterprises. This article will examine how AI and cloud computing are affecting HR, as well as the advantages they provide and the difficulties and factors were taken into account when putting these technologies into practice (Johnson, B. A., Coggburn, J. D., & Llorens, J. J. (2022)). For businesses of all sizes, cloud-based HR solutions have a lot to offer. They offer a consolidated platform for handling payroll, benefits, performance reviews, and employee data. This lowers the possibility of mistakes, simplifies HR procedures, and does away with the need for manual documentation. Employee productivity and self-service increased by cloud solutions' real-time information access and updating capabilities (Bandari, V. (2019)). After being primarily responsible for administrative tasks and manual procedures, HR is now leading the way in the digital revolution. In addition to speeding up HR procedures, the combination of AI and cloud computing has increased the strategic importance of HR specialists. With the help of these advances, which are now essential rather than optional, businesses can successfully monitor performance, engage employees, find talent, and operate with unmatched efficiency and insight. This article provides a thorough analysis of how AI and cloud computing are revolutionizing HR procedures. It provides a historical overview of the development of HR technology, highlighting the critical juncture at which cloud computing and artificial intelligence started to act as innovation accelerators. It also emphasizes the benefits of cloud-based HR solutions, stressing their affordability, scalability, and flexibility (Van Esch, P., & Black, J. S. (2019)). Nevertheless, there are ethical issues to address in addition to the productivity and efficiency claims. The study discusses the crucial concerns of bias and justice in AI-driven HR procedures as well as the significance of data security and privacy in cloud-based HR systems. It also

looks ahead, talking about new developments in HR technology and trends like chatbots driven by AI and sophisticated analytics, providing insights into what is in store for HR specialists.

**METHODOLOGY**

The study article's approach is to investigate the qualitative effects of cloud computing and artificial intelligence (AI) on HR procedures. The goal of this qualitative study is to comprehend the complex ways that these technologies are changing strategic decision-making, employee experience, and HR operations. The process is broken down into many important phases to guarantee a thorough investigation of the topic. In order to obtain comprehensive understanding of the experiences, perspectives, and difficulties that HR professionals and businesses have while utilizing AI and cloud technologies, the study used a qualitative research approach directly based on the real experience. Problems were defined and possible solutions were suggested, this method enables a deep comprehension of the intricate dynamics at work as well as the qualitative adjustments that these technologies are causing to HR procedures. The study will be grounded on a comprehensive analysis of the literature, which will highlight important topics, arguments, and knowledge gaps in the field of artificial intelligence and cloud computing in HR. In order to precisely outline the study topics and objectives, this evaluation will include information from the industry, scholarly publications, and expert analyses. The research itself will employ focus groups and document analysis in data collection, to find patterns, themes, and narratives that recur across the data collection, thematic analysis will be used to examine data from focus groups, interviews, and documents. As the research develops, this analysis will be iterative, alternating between data gathering and analysis to hone themes and understandings.

**PROBLEM DESCRIPTION**

The development of HR technology from its beginnings to the present is evidence of how the field of human resources (HR) is always changing.




**Figure 1 The Future of HR strategy**

This section offers a historical overview of the development of HR technology, showing how it progressed from simple systems to the complex AI and cloud-driven solutions of today.

**The Initial Years (until 1990s):** Manual Procedures The majority of people management in the early days of HR was done by hand. HR specialists gathered employee data, handled payroll by hand, and kept paper-based records.

The Development of HR Software Human Resource Information Systems (HRIS) or HR software systems became popular in the late 20th century. These technologies digitized HR data, facilitating information access and management (Hunkenschroer, A. L., & Luetge, C. (2022)).

**The 1990s saw the rise of HRIS:** Automation of Administrative functions: HRIS automated a number of administrative HR functions, including recordkeeping, benefits administration, and payroll

processing. HR specialists were able to concentrate on more significant facets of their jobs because to this efficiency.

The Inception of Software for Talent Management: Talent management software solutions have been around since HRIS's inception, helping businesses handle hiring, onboarding, performance reviews, and staff development more efficiently (Hunkenschroer, A. L., & Luetge, C. (2022)).

**The 2000s, the Age of Digital Transformation:** Cloud-Based HR Solutions: Cloud-based HR solutions have become increasingly popular in the twenty-first century. These systems, often known as Human Capital Management (HCM) systems, provide cost-effectiveness, scalability, and accessibility.

AI Integration: Artificial Intelligence (AI) started to play a major role in HR, first in talent acquisition, where applicant matching and resume screening enabled by AI transformed the hiring process.

**The AI and Cloud Revolution (2010s):** AI-Driven HR Processes: AI emerged as a key component of HR innovation, extending its application to predictive analytics, performance management, and employee engagement.

Seamless Cloud Access: Real-time access from any location, the ability to work remotely, and support for international operations are just a few of the ways that cloud solutions for HR have revolutionized the way HR professionals handle and access data.

**The Current and Future (2020s):** AI-Cloud Fusion: These days, cloud and AI technologies complement one another, allowing HR to be in use for decision-making based on facts and customized work experiences. Moral Aspects to Take into Account: The ethical implications of AI, data protection, and justice are becoming more and more important as HR technology advances, pushing businesses to implement ethical procedures. (Gulliford, F., & Dixon, A. P. (2019))

HR technology has advanced dramatically, moving from manual procedures to AI and cloud-driven solutions that enable businesses to recruit, engage, and retain staff. It is critical to acknowledge the historical background that has affected the present and will continue to affect the future of HR technology as we investigate the advancements and uses of AI and cloud technologies in HR.

**Data Security and Compliance:** Data Protection: To safeguard HR data, cloud providers substantially invest in strong security measures. They frequently respect industry certifications and standards, which aids in maintaining data privacy and regulatory compliance for enterprises.

Cybersecurity Concerns: Data breaches are becoming more likely as HR procedures become more digitally oriented. Sensitive employee data, including financial information, performance reviews, and personal information, is stored in HR systems. It is essential to have strong cybersecurity safeguards in place to secure sensitive data. (Nyathani, R. (2023))

Compliance Challenges: HR systems need to abide by a number of data protection rules and regulations, including local privacy laws and HIPAA and GDPR. It can be difficult to manage and keep current with these compliance obligations, particularly for multinational corporations that operate in several jurisdictions.

Ethical AI Governance: Cloud platforms provide services and solutions for ethical AI governance, assisting businesses in addressing issues with fairness and prejudice in AI-powered HR procedures.

**Complexity of Integration:** Information Silos: Numerous businesses utilize a range of HR software programs for various tasks, including hiring, performance evaluation, invoicing, and staff involvement. These systems could function independently, creating data silos and making it difficult to see employee data as a whole.

Legacy Systems: It can be expensive and difficult to integrate with old systems. There may be compatibility issues between outdated HR systems and more recent technology, which makes data flow and process optimization challenging.

**POLICY OPTIONS**

The HR industry's adoption of AI and cloud computing has significantly changed how firms run. HR departments can now automate monotonous processes, analyze massive volumes of data, and get insightful knowledge thanks to AI-powered algorithms and machine learning models. No matter where they are physically located, HR professionals can access information and communicate in real time thanks to cloud solutions' scalable and adaptable architecture. This section demonstrates how AI and

cloud solutions may be seamlessly integrated into HR operations, enhancing and augmenting each other's capabilities.

**Facilitating Scalability and Flexibility: Scalable Infrastructure:** Cloud-based solutions offer the necessary infrastructure for AI-driven HR systems, algorithms and applications. Businesses are able to adjust their resource levels to meet shifting needs related to human resources.

Remote Accessibility: AI-driven tools and data are accessible to HR professionals remotely through cloud-based HR solutions, facilitating remote work arrangements and multinational teams (Arora, P. (2019)).

**Data Security and Compliance:** To safeguard HR data, cloud providers make significant investments in strong security measures. They frequently uphold industry certifications and standards, assisting businesses in maintaining data privacy and legal compliance.

Ethical AI Governance: Cloud platforms provide services and solutions for ethical AI governance, assisting businesses in addressing issues with fairness and prejudice in AI-powered HR procedures.

**Adoption of AI at a Low Cost:** Cloud solutions usually have a pay-as-you-go pricing structure, which spares businesses from having to pay hefty upfront fees for AI infrastructure.

This affordability encourages a wider deployment of AI in human resources.

Scalable AI Solutions: Cloud platforms let businesses gradually expand their AI projects so that expenses match expansion and HR requirements.

The way AI and cloud solutions are used in HR is a perfect example of how these two technologies work well together. Cloud platforms offer the accessibility and infrastructure required for AI adoption, which in turn improves HR procedures, streamlines workflows, and yields insightful data.

Through this connection, HR professionals can take advantage of cloud solutions' scalability, flexibility, and security while employing AI-driven decision-making, customization, and automation. The smooth integration of AI and cloud technology will continue to spur innovation and efficiency as businesses traverse the digital HR environment, opening up new avenues for HR excellence (Malini, T. N., & Srinivas, D. B. (2020, October)).

AI has revolutionized employment and recruitment procedures, increasing their accuracy and efficiency. HR departments may use AI algorithms to automate the screening process, evaluate resumes, and determine which individuals are most suited for a certain position. As a result, HR professionals can concentrate on higher-value tasks like conducting interviews and determining cultural fit, saving time and effort. AI and cloud-based HR tools have a bright future ahead of them. AI systems will get more precise and able to handle challenging jobs as they develop. Organizations will be able to foresee labor trends, spot talent shortages, and put proactive HR plans into place thanks to predictive analytics. The integration of cloud solutions with other company systems will increase, giving employees a comprehensive picture of their data and facilitating smooth departmental communication.

While there are many advantages to integrating artificial intelligence (AI) into hiring procedures, there are also moral issues that need to be resolved by businesses in order to maintain justice, openness, and adherence to the law and society standards (Seo, J., Cho, Y. W., Jung, K. J., & Gim, G. Y. (2019)). It is crucial to keep a close watch on new trends and technologies that have the potential to drastically alter the HR landscape as human resources (HR) continues to change in the digital age. The future of HR technology is examined in this part, with a focus on important developments and trends that HR professionals and businesses should adopt to remain inventive and competitive.

**CONCLUSION**

The integration of Artificial Intelligence (AI) and cloud solutions in Human Resources (HR) technology offers unparalleled opportunities for innovation and efficiency. However, with great power comes great responsibility, and ethical considerations are paramount in this digital era. This section explores the ethical dimensions of AI and cloud solutions in HR, addressing issues related to fairness, transparency, data privacy, and responsible AI governance.

As we get to the end of our investigation, it is clear that cloud computing and artificial intelligence (AI) have not only improved HR procedures but also completely changed the position of HR specialists in businesses.

They have given HR teams the tools they need to make data-driven choices, design individualized employee experiences, and spur organizational expansion.

Scalability, flexibility, and cost-effectiveness have been introduced to HR operations through the smooth integration of AI and cloud technology, allowing businesses to manage international teams and adjust to shifting workforce dynamics. It has made remote work arrangements easier, improved the experience for both candidates and employees, and given HR specialists up-to-date information about their companies.

But there have been difficulties along the way of this life-changing experience. Building trust with applicants, workers, and stakeholders requires firms to give fairness, openness, and data protection first priority when it comes to AI and cloud HR ethics. Responsible AI governance must include anti-discrimination measures, legal compliance, and ongoing oversight (Eubanks, B. (2022)).

In the future, HR is expected to see even more advancements. AI-driven chatbots, blockchain for HR, machine learning for predictive modeling, natural language processing, and sophisticated analytics are all set to completely transform the HR industry. These cutting-edge technologies present chances for improved employee experiences, more effective HR procedures, and more knowledgeable decision-making.

**REFERENCES**

1. Johnson, B. A., Coggburn, J. D., & Llorens, J. J. (2022). Artificial Intelligence and Public Human Resource Management: Questions for Research and Practice. *Public Personnel Management*, *51*(4), 538-562.

2. Bandari, V. (2019). Exploring the Transformational Potential of Emerging Technologies in Human Resource Analytics: A Comparative Study of the Applications of IoT, AI, and Cloud Computing. Journal of Humanities and Applied Science Research, 2(1), 15-27.

3. Van Esch, P., & Black, J. S. (2019). Factors that influence new generation candidates to engage with and complete digital, AI-enabled recruiting. Business Horizons, 62(6), 729-739.

4. Hunkenschroer, A. L., & Luetge, C. (2022). Ethics of AI-enabled recruiting and selection: A review and research agenda. Journal of Business Ethics, 178(4), 977-1007.

5. Gulliford, F., & Dixon, A. P. (2019). AI: the HR revolution. Strategic HR Review, 18(2), 52-55.

6. Nyathani, R. (2023). AI-Driven HR Analytics: Unleashing the Power of HR Data Management. Journal of Technology and Systems, 5(2), 15-26.

7. Arora, P. (2019). Redesigning human resource management system through cloud computing: a strategic approach. Journal of Technology Management for Growing Economies, 10(2), 73-79.

8. Malini, T. N., & Srinivas, D. B. (2020, October). Technological transcends: Impact of industrial 4.0 on human resource functions. In 2020 Fourth International Conference on I-SMAC (IoT in Social, Mobile, Analytics and Cloud)(I-SMAC) (pp. 816-820). IEEE.

9. Seo, J., Cho, Y. W., Jung, K. J., & Gim, G. Y. (2019). A Study on Factors Affecting the Intension to Use Human Resource Cloud Service. Big Data, Cloud Computing, Data Science & Engineering 3, 157-172.

10. Eubanks, B. (2022). Artificial intelligence for HR: Use AI to support and develop a successful workforce. Kogan Page Publishers.

# KİÇİK VƏ ORTA BIZNESLƏRDƏ PROSESLƏRİN AVTOMATLAŞDIRILMASI ZAMANI QARŞILAŞILAN MANEƏLƏR VƏ HƏLLI İSTİQAMƏTLƏRİNİN MÜXTƏLİF ASPEKTLİ TƏHLİLİ

**RƏŞİD BAYRAMLI**
Azərbaycan Dövlət İqtisad Universiteti
Beynəlxalq Magistratura və Doktorantura Mərkəzi
*residbayramli9@gmail.com*
XIRDALAN, AZƏRBAYCAN

**XÜLASƏ**

Günümüzdə rəqəmsal transformasiyaların intensiv inkişafı sosial varlıq olan biznesə də öz təsirini göstərmişdir.Rəqəmsal innovasiya əlbəttə ki, gətirdiyi töhvələrlə yanaşı eyni zamanda texniki və psixoloji manelərlə qarşılaşma ehtimalı yaradır.Azərbaycanda bizneslərin inkişafının ümumi iqtisadiyyatın lokomotivi olacağını əsas alaraq, bu sahənin rəqəmsallaşması zamanı yarana biləcək, texniki, psixoloji, inzibati və bürokratik maneələr araşdırılmışdır.Təqdiqat işində İsveç Rəqəmsallaşma modeli əsasında müqayisəli təhlillər verilmiş, ordakı təcrübələrin Azərbaycanda mümkün tətbiqi istiqamətləri incələnmiş və perspektivlər haqqında məlumat verilmişdir.Tezisdə həmçinin müşahidə metodu ilə 100-dən (yüzdən) çox şirkətdə proseslərin avtomatlaşdırılması zamanı qarşılaşılan maneələr incələnmiş, tətbiq olunmuş effektiv həll yolları verilmişdir.Sorğu əsasında sahibkarların rəqəmsallaşmadan gözləntiləri, əldə etmək istədikləri faydalar ələ alınmışdır.Eyni zamanda biznesin avtomatlaşdırılması istiqamətində peşəkar fəaliyyəti ilə tanınan 5 ( beş ) mütəxəssislərlə müsahibə əsasında real keyslər incələnmişdir.Eyni zamanda induksiya və deduksiya metodlarına istinad edilmişdir. Ölkəmizdə Kiçik və Orta bizneslərin kifayət qədər olması,onlar üçün rəqəmsallaşma tendensiyalarının hər ötən gün daha da aktuallaşması və bu sahənin inşkişafı ilə rəqəmsal iqtisadiyyatın inkişaf etdirilərək ümumilli gəlirin artımı nəticəsində rifahın təmin olunması mövzunu aktual edir.Araşdırmanıın nəticəsində gəlinmiş qənaətə uyğun olaraq təkliflər planının hazırlanıb Rəqəmsal İnkişaf Üzrə dövlət təşkilatlarına və İqtisadiyyat Nazirliyinə təqdim olunması hədəflənmişdir. Araşdırmanın nəticəsində şəffaf rəqəmsal mühitin formalaşmasındakı manelərin aşılması yollarının aşkarlanması, dünya praktikasında uğurlu layihələrin lokal analogiyasının tətbiqi əsas prioritetlərdəndir.

**AÇAR SÖZLƏR:**

Rəqəmsal Inkişaf, Kob-Larda Avtomatlaşma, Rəqəmsallaşmaya Qarşi Maneələr, Rəqəmsal Adaptasiya

**ABSTRACT**

Today, the intensive development of digital transformations has also had its effect on business, which is a social entity. Digital innovation, of course, along with the contributions it brings, creates the possibility of encountering technical and psychological obstacles at the same time. Assuming that the development of businesses in Azerbaijan will be the locomotive of the general economy, the technical and technical problems that may arise during the digitization of this field , psychological, administrative and bureaucratic obstacles were investigated. In the research work, comparative analyzes were given based on the Swedish Digitization model, the directions of the possible application of the practices in Azerbaijan were narrowed down and information was provided about the prospects. The thesis also described the obstacles encountered during the automation of processes in more than 100 (hundred) companies using the observation method. Refined and implemented effective solutions are given. Based on the survey, the expectations of entrepreneurs from digitization and the benefits they want to obtain were captured. At the same time, real cases were refined based on interviews with 5 (five) specialists known for their professional activities in the direction of business automation. At the same time, induction and deduction methods were referred to. . The fact that there are enough Small and Medium-sized businesses in our country, the digitization trends are becoming more and more relevant for them every day, and the development of the digital economy and the growth of the general income with the development of the digital economy make the topic relevant. In accordance with the conclusions reached as a result of the research, a proposal plan has been prepared

Digital Development It is intended to be submitted to state organizations and the Ministry of Economy. As a result of the research, the detection of ways to overcome obstacles in the formation of a transparent digital environment, and the application of local analogies of successful projects in world practice are among the main priorities.

**KEY WORDS:**
*Digital Development,Automation In Smes, Barriers To Digitalization,Digital Adaptation*

**GIRIŞ**

Bugünkü sürətlə inkişaf edən qlobal iqtisadiyyatda kiçik və orta sahibkarlıq (KOB) innovasiyaların, iqtisadi artımın və iş yerlərinin yaradılmasında mühüm rol oynayır. Bir çox başqa ölkələrdə olduğu kimi Azərbaycanda da KOB-lar sahibkarlıq mənzərəsinin əsasını təşkil edərək ölkənin iqtisadi inkişafına mühüm töhfə verir. Biznes mənzərəsi getdikcə daha rəqabətli və texnologiyaya əsaslanan bir vəziyyətə düşdükcə, Azərbaycanda KOB-lar əməliyyat səmərəliliyini artırmaq, prosesləri rasionallaşdırmaq və bazarda rəqabətədavamlı qalmaq üçün avtomatlaşdırma həllərini qəbul etmək ehtiyacı ilə üzləşirlər.Biznes proseslərinin avtomatlaşdırılması KOB-lara məhsuldarlığın artırılması, xərclərə qənaət, təkmilləşdirilmiş qərar qəbulu və təkmilləşdirilmiş müştəri təcrübəsi daxil olmaqla çoxsaylı üstünlüklər təklif edir. Bununla belə, avtomatlaşdırmanın uğurlu tətbiqinə aparan yol problemlərsiz deyil. Azərbaycanda KOB-lar avtomatlaşdırma texnologiyalarının onların əməliyyatlarına rahat inteqrasiyasına mane olan müxtəlif maneələrlə qarşılaşırlar. Bu maneələr maliyyə məhdudiyyətlərindən və məhdud texniki təcrübədən tutmuş mədəni müqavimətə və tənzimləmə mürəkkəbliyinə qədər dəyişə bilər.Bu məqalə Azərbaycanda KOB-ların biznes proseslərinin avtomatlaşdırılması zamanı qarşılaşdıqları maneələrin və onların həlli istiqamətlərinin hərtərəfli təhlilini aparmaq məqsədi daşıyır. Bu tədqiqat işi avtomatlaşdırma texnologiyalarının qəbuluna təsir edən çoxşaxəli aspektləri araşdıraraq, KOB-ların avtomatlaşdırma səyahətində daha effektiv istiqamət almasına kömək etmək üçün dəyərli fikirlər və praktiki tövsiyələr verməyə çalışır.Tədqiqatda KOB sahibləri, menecerlər və avtomatlaşdırma prosesində iştirak edən əsas maraqlı tərəflərlə kəmiyyət sorğuları və keyfiyyətli müsahibələri birləşdirən qarışıq metodlardan istifadə olunacaq. Tədqiqat nəticələrin uyğunluğunu və ümumiləşdirilməsini təmin etmək üçün Azərbaycanda müxtəlif sənaye,hokumət və regionlar üzrə KOB-ların təmsilçilərinə təqdim ediləcək.Bu tədqiqatın əsas məqsədləri aşağıdakılardır:

1- Avtomatlaşdırma texnologiyalarını tətbiq edərkən Azərbaycanda KOB-ların üzləşdiyi əsas maneələri müəyyənləşdirmək,

2- Maliyyə, texniki, mədəni və tənzimləyici amillər də daxil olmaqla, bu maneələrin arxasında yatan səbəbləri araşdırmaq,

3- Avtomatlaşdırmanın Azərbaycanda KOB-ların ümumi fəaliyyətinə və rəqabət qabiliyyətinə təsirini araşdırmaq,

4- Müəyyən edilmiş maneələri aradan qaldırmaq və avtomatlaşdırmanın uğurlu tətbiqini asanlaşdırmaq üçün praktik həll istiqamətləri və strategiyaları təklif etmək,

5- Azərbaycanda KOB-ların avtomatlaşdırmanı mənimsəmələri üçün əlverişli mühitin yaradılması üçün dövlət təşkilatları, biznesə dəstək təşkilatları və digər maraqlı tərəflər üçün tövsiyələr vermək,

Azərbaycan sahibkarlıq kontekstində biznes proseslərinin avtomatlaşdırılması ilə bağlı çətinliklər və imkanlara işıq salmaqla, bu məqalə KOB-ların inkişafı və avtomatlaşdırmanın qəbulu ilə bağlı mövcud ədəbiyyata töhfə vermək məqsədi daşıyır.Tədqiqat işi aşağıdakı fəsilləri özündə cəmləşdirmişdir:

1. Biznesin avtomatlaşdırılmasının nəzəri metadoloji əsasları,
2. Şirkətlərdə avtomatlaşdırma prosesinin çətinlikləri və qarşılaşılan başlıca problemlər,
3. KOB-ların avtomatlaşdırma prosesi zamanı qarşılaşılan xərc və təlim problemlərinin həlli istiqamətləri,
4. Avtomatlaşdırmanın biznes,dövlət və struktur orqanlara faydaları,
5. Azərbaycanda neft iqtisadiyyatından rəqəmsal iqtisadiyyata keçid.

Bu tədqiqatın nəticələri və tövsiyələri Azərbaycanın dinamik biznes landşaftında dayanıqlı inkişafı, texnoloji tərəqqi və dayanıqlığı təşviq edən effektiv strategiyaların formalaşdırılmasına kömək edən KOB-lar, siyasətçilər və tədqiqatçılar üçün dəyərli mənbə rolunu oynaya bilər.

**TƏDQIQAT METODU**

Tədqiqat işində əsas etibarı ilə kiçik orta bizeslərdə proqram təminatlarının tətbiqi, avtomatlaşmış mühitdə idarəetmə, rəqəmsal transformasiyaya keçid meyilləri incələnmişdir. Tədqiqat zamanı 100-ə yaxın kiçik və orta biznesin daxili prosesləri müşahidə olunmuşdur.Müşahidənin nəticəsində mövcud problemlər aşkarlanmışdır. Eyni zamanda biznesin avtomatlaşdırılması istiqamətində ölkəmizdə tanınmış bir neçə konsultant ekspertlə müsahibə aparılmışdır. Bunlardan biri 20 ilə yaxındır ki, ölkəmizdə biznesin avtomatlaşması istiqamətində böyük həllərin tətbiqini həyata keçirmiş olan ekspert Emin Əsgərovdur. Emin Əsgərovla müsahibə zamanı xüsusi ilə ölkəmizdə idarəetmə uçotunun avtomatlaşdırımasına ehtiyacın olduğu vurğulanmışdır. Sahibkarların Mənfəət və Zərər, Balans, Pul axını kimi vacib qərar vermə aləti olan hesabatları hələ də excel və ya kağız daşıyıcılar üzərində əldə etdikləri, bunu səbəbilə də uğurlu qərarların verilməsi üçün qarşılıqlı təhlillərin aparılmasından məhrum olmaları qeyd edilmişdir. Bütün bunlarla yanaşı tədqiqat işində deduksiya və induksiya metodlarından itifadə olunaraq rəqəmsallaşmanın mikro və makro mühitdə incələnməsi həyata keçirilmişdir.

**BIZNESIN AVTOMATLAŞDIRILMASININ NƏZƏRI METADOLOJI ƏSASLARI**

Bizneslər əlbəttə ki, bir çox fəaliyyətlərdən ibarətdir. Xüsusilə bu fəaliyyətlər əməliyyatlar adı altında qeydiyyat tələb edir.Günlük alış,satış,mədaxil,məxaric və sair kimi bir çox prosesləri fərdlər icra etmək məcburiyyətində qalırlar. Düzdür avtomatlaşma o demək deyil ki, insan faktorundan tamamilə azad olunacaq, lakin avtomatlaşma biznes proseslərin daha dəqiq, qüsursuz və operativ icrasına zəmin yaradır. Biznesdə proseslərin avtomatlaşmasının təhrifini verməli olsaq onu aşağıdakı kimi qeyd edə bilərik:

"*Biznes proseslərin avtomatlaşdırılması dedikdə vaxt alıcı, dəqiqlik tələb edən fəaliyyətlərin rəqəmsal mühitdə optimal şəkildə təşkili və icrası nəzərdə tutula bilər*."

Biznesin avtomatlaşması həmçinin təşkilatlara mütəlif istiqamətlərdəki informasiya axınının vahid platforma üzərindən mübadiləsi imkanını veririr. Hansı ki, bu da şəffaf nəzarət və vaxtında operativ müdaxilələri əlçatan edir.

**Şirkətlərdə avtomatlaşdırma prosesinin çətinlikləri və qarşılaşılan başlıca problemlər**

Bizneslərin rəqəmsal mühitdə idarə olunması optimallığı gətirdiyi kimi özü ilə avtomatlaşma qərarı zamanı və avtomatlaşmanın tətbiqi zamanı müxtəlif çətinliklət gətirə bilər.Bu çətinlikləri aşağıdakı kimi ələ almaq mümkündür:

**Avtomatlaşdırmanın şirkətlər üçün maddi cəhətdən yüksək xərcli olması**: yüksək xərclər avtomatlaşdırma prosesinin ən böyük problemlərindən biridir. Yeni texnologiyaların alınması, quraşdırılması, inteqrasiyası və saxlanması baha başa gələ bilər. Bundan əlavə, mövcud kadrların hazırlanması və yeni bacarıqların mənimsənilməsi üçün maliyyə vəsaiti tələb olunur.Bu problemin aradan qaldırılması üçün şirkətlər aylıq icarə ilə əldə edilməsi mümüknün olan SAAS ( software as a service/icarəyə verilən proqram təminatı ) hələrindən faydalana bilər və ya innovasiya üçün ayrılmış bəzi qrantlardan yararlana bilərlər.

**Kadr hazırlığı və qəbul prosesindəki çətinliklər:** Bu, insanların dəyişən biznes proseslərinə və yeni texnologiyaların qəbuluna müqavimət göstərə biləcəyi mədəni dəyişikliyi əhatə edir. Bu vəziyyətdən çıxmaq üçün müəssisələr kadr hazırlığına və dəyişikliklərin idarə edilməsinə diqqət yetirməlidirlər.

**Biznes proseslərinin mürəkkəbliyi:** bu KOB-ların avtomatlaşdırılması prosesində başqa bir problemdir. Bir çox müəssisənin mürəkkəb və fərdiləşdirilmiş biznes prosesləri ola bilər. Bu prosesləri avtomatlaşdırmaq üçün uyğun texnologiyalar tapmaq və inteqrasiya etmək çətindir. Bu zaman biznes prosesləri dəqiq təhlil edilməli və optimallaşdırılmalıdır. Bu isə vaxt və resurslar tələb edir. Texnoloji maneələr avtomatlaşdırma prosesini çətinləşdirən amillərdəndir. Yeni texnologiyaların sürətli inkişafı KOB-ların bu texnologiyalarla ayaqlaşmasını çətinləşdirə bilər. Xüsusilə, məlumat analitikası və süni intellekt kimi mürəkkəb proqram təminatının və qabaqcıl texnologiyaların başa düşülməsi və tətbiqi vaxt apara bilər və təcrübə tələb edə bilər. Bu texnoloji maneələri aradan qaldırmaq üçün KOB-ların müvafiq məsləhət və təlim resurslarına çıxışı olması vacibdir.

**Mövcud infrastrukturun uyğun olmaması:** Avtomatlaşdırma prosesində başqa bir problemdir. Bəzi KOB-ların köhnə və ya yetərsiz texnoloji infrastrukturu ola bilər. Bu, yeni avtomatlaşdırma sistemlərinin inteqrasiyasına və səmərəli fəaliyyətinə mane ola bilər. İnfrastrukturun yenilənməsi və uyğunlaşdırılması üçün əlavə səy və resurslar tələb oluna bilər.

**KOB-LARIN AVTOMATLAŞDIRMA PROSESI ZAMANI QARŞILAŞILAN XƏRC VƏ TƏLIM PROBLEMLƏRININ HƏLLI ISTIQAMƏTLƏRI**

KOB-larda avtomatlaşdırma prosesində xərcləri azaltmaq üçün aşağıdakı strategiyalar tətbiq oluna bilər:

turizm növləri üçün lazımi təşviq, endirim və s. E-ticarətdən turizm sektorunda banklar vasitəsi ilə kampaniyalardan kifayət qədər yararlanıldığı təqdirdə, turizmi bütün bir il boyunca istifadə ediləcək şəkildə yayaraq, təmin edilən işgücünün davamlılıq qazanacağı proqnoz edilir.

**AÇAR SÖZLƏR:** E-Ticarət, Turizm, Marketing, E-Ticarətdən istifadəyə yönəlik fəaliyyətlər,

**ABSTRACT**

The number of institutions and customers participating in tourism activities is increasing rapidly worldwide. With the development of technology and the spread of the internet, commerce has become more accessible for more people at lower costs, leading to its implementation in the online environment. As consumers become increasingly informed, they research products and services more thoroughly and utilize the internet effectively. The purpose of this work has been to emphasize the significance of the growing e-commerce market, explained with digital data, and to explore the role and future of e-commerce in tourism, providing recommendations. As a result of this effort, during the period between November and March, known as the "off-season," it has been suggested to provide necessary incentives, discounts, etc., through bank contracts for alternative types of tourism. If tourism businesses in the sector adequately utilize banks through e-commerce, they will have the opportunity to promote tourism throughout the year, ensuring the continuity of the provided workforce, which is forecasted to be equal to the result.

## GİRİŞ

Günümüzdə, əlaqə və məlumat texnologiyalarında baş verən bir çox inkişaf nəticəsində, hemmüəssisələr hem də tükəticilərə bu vasitələrdən istifadə baxımından rahatlıq yaranmışdır. Texnoloji inkişaflar, gedərək artan rəqabət mühitində hər sektorda olduğu kimi turizm sektorunda da rəqabət gücünü artıracaq imkanlar yaratmaqdadır. Tükəticilərin, İnternet vasitəsi ilə əldə edə bildikləri imkanlara misal olaraq, elektronik bilet, kampaniyalar, təminat tanıtımları, gedilməsi nəzərdə tutulan tursitik məkanlar və mədəniyyətlər haqqında məlumat əldə edilməsi kimi turizm fəaliyyəti sahələrində vacib inkişaf ədlə etmələrə səbəb olmuşdur. Bu texnoloji inkişaflarla birlikdə gələn dəyişikliklərə ayaq uyduranlar öz fəaliyyət sahələrini artırarkən, ayaq uydura bilməyənlər isə çətin bir prosesdən keçərək, nəticədə fəaliyyətlərini sonlandırırlar.

Digər bir tərəfdən, ölkələrin bir-birilə olan rəqabəti, ekonomik qazancları yüksək olan turizmdən daha çox pay əldə edə bilmək məqsədilə, turizmi il boyu yaymaq və daha çox gəlir əldə etmək üçün alternativ turizm növlərini meydana çıxartmışdır. Edilən çalışmanın məzmunu, texnologiyaların inkişafı ilə birlikdə iştirakçıları gündən-günə artan e-ticarəti turizm sektorundakı yeri və əhəmiyyəti açıqlanaraq, istifadə sahələrini araşdırmaqla, 2013-2017 – ci illər arasında Azərbaycana gələn xarici səfərlərin aylıq bölüşdürülməsində"aşağı mövsüm" kimi adlandırılan aylarda, turizmi canlandırmaq və turizm fəaliyyətlərinə iştirakı artırmaq məqsədi ilə e-ticarətin necə istifadə olunacağı məsələsində tövsiyələr təklif etməkdədir.

### Elektronik Ticarət (E-ticarət ) Anlayışı

E-ticarət anlayışına müəyyən bir tərif verməzdən əvvəl, internet və ticarət terminlərini ayrı-ayrılıqda anlamaq və buna uyğun olaraq təsnif etmək vacibdir. E-commerce olaraq da bilinən e-ticarət əsasən internet vasitəsi ilə alış-satışla əlaqəli olaraq tanımlanır [1, səh, 15-25]. İnternet termini ən sadə təsnifi ilə, bir neçə network adlanan kommunikasiya şəbəkələrinin birlikdə təşkil etdiyi kommunikasiya mühiti olaraq təsvir olunur [2, səh, 7-14]. Azərbaycanda 1993-cü il Aprel ayından etibarən internetdən istifadə edir [3, səh, 21-25]. Cassonun 1999-cu ildə aparılmış çalışmasında ticarətin bir elm olduğunu müdafiə etmişdir [4, səh, 7-10]. Ticarət anlayışı əvvəlcə yalnız məhsul olaraq sadəcə mal satmaq məqsədi ilə mal satın alınması olaraq təsvir olunurdu [5, səh, 19 -23]. Zamanla, ticarət anlayışına xidmət termini də əlavə olunaraq, məhsul və ya xidmətin alınıb-satılması kimi təsvir edilməyə başlanmışdır [6, səh, 6-9].E-ticarət haqqında keçmişdən bugünə bir çox təsvirlər aparılmışdır. Qısaldılmış forması E-Ticarət olaraq tanımlanan elektronik ticarət, hər cür məhsul və xidmətin İnternet vasitəsi ilə təhlükəsiz şəkildə satılması olaraq təsvir edilir [7, səh, 3-10]. 1997-ci ildə İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatına (OECD) görə e-ticarət; rəqəmsallaşdırılmış mətn, səs və görüntülərin emalı və ötürülməsinə əsaslanan, fərdləri və qurumları maraqlandıran bütün ticari fəaliyyətlər kompleksi kimi təsvir olunur [6, səh, 7-9].Başqa bir təsvirə görə isə elektronik ticarət, xidmətlərin və ya məhsulların elektronik mühit və telekommunikasiya şəbəkələri vasitəsi ilə istehsalı, reklamının, satışının və paylaşılması proseslərinin yerinə yetirlməsi şəklində təsvir olunur [8, səh, 30-37].

E-ticarət, məlumat, məhsul və ya xidmət alma və satma fəaliyyətinin kompüter şəbəkələri vasitəsi ilə həyata keçirilən və bu mühitdə marketinq fəaliyyətlərini yerinə yetirən, satışın bütün mərhələlərində müştəri dəstəyi verən, ticari təşkilatlarla müştərilər arasında ticari və logistika əlaqəsi yenə qlobal kompüter şəbəkələri vasitəsi ilə təmin edilən fəaliyyətlərin bütünüdür [9, səh, 306-308]. E-ticarət, məqsəd güdən və güdməyən bütün təşkilatları öz tərkibində formalaşdırmaqdadır. [9, səh, 886-887]. Daha geniş bir təsvir ilə e-ticarət; İnternet üzərində, kompüter vasitəsi ilə və telekommunikasiya texnologiyasından istifadə edilərək məhsul satışı və xidmət təqdim edilməsi ilə birlikdə, məhsulların və xidmətlərin tanıdılması və bunların ticari məqsədlərlə bazarlara təqdim edilməsi, satışlarının həyata keçirilməsi və satış qiymətlərinin toplanılması olaraq təsvir olunur [2, səh, 21-23].

**E-ticarətin müsbət cəhətləri**

- İnformasiya texnologiyalarının turizm sektorunda istifadəsi ilə yaradılan veb saytları vasitəsi ilə, 7/24 müştəriyə xidmət göstərilməsi və məhsul satışının həyata keçirilə bilməsi mümkündür. Bundan başqa, eyni şəkildə turistlər də ehtiyacları olan məlumatlara bu veb saytları vasitəsi ilə hər an çata bilir, Anlıq olaraq bu məlumatlardan istifadə edə bilirlər [11, səh, 116-120].
- Fiziki bir mağaza açmanın maliyyəti ilə müqayisədə, Elektron bir mağazanın açılması maliyyətinin çox aşağı olması, eyni zamanda İnternet vasitəsi ilə effektiv reklam, limitsiz istifadə imkanları sayəsində dünya miqyasında müştəri şəbəkəsi ilə firmaların yüksək satış həcmini təmin etməsinə kömək edir.
- Müəssisələrin fəaliyyətlərini icra edərkən istifadə etdikləri texnologiyaların inkişaf etmiş və dövrə uyğun olmuş olması, onların müştəri və rəqibləri arasında prestijlərini gücləndirərək daha üstünlüklü bir mövqeyə malik olmalarına səbəb olur.
- Müştəri istədiyi yerə internet vasitəsi ilə zaman və məkan konsepti olmadan istənilən zamanda istənilən yerdən alış-veriş edə bilir.
- İnternetdə alış-verişi asan olduğu kimi, özü üçün ən uyğun məhsulu alternativ məhsullarla müqayisə edərək seçim etməsində asanlıq təmin edir.

**E-ticarətin mənfi cəhətləri**

- Paylaşılan məlumatlar üzərindəki nəzarətlərin kifayət qədər olmaması
- Əldə edilməsi lazım olan məlumata çatmada vaxt və bu məlumatdan istifadə zamanı problemlərlə qarşılaşılması
- Elektronik ödəniş sistemlərində təhlükəsizlik ilə bağlı problemlemlərin olması (inam problemləri, vəs.)
- Vergi və Gömrük ilə bağlı yaşanan problemlərin olması
- Lazım olan infrastruktur və avadanlıqla əlaqədar əksikliklərin və nöqsanların olması [12, səh, 29-33].
- Elektron ticarətin inkişafında ən əsas səbəblərdən biri ağıllı telefonlar və sosial media platformaları olub, istifadəçilərinin hər keçən gün daimi olaraq artış göstərməsidir. Ağıllı telefonlar, günün hər anında əlaqə qurmağa, kitab və qəzet oxumağa, sosial media, e-poçt izləməyə və internetə daxil olmağa imkan verən və bunun əlavəsində alış-veriş etmək üçün istifadə edilən sərfəli bir vasitəyə çevrilmişdir [13, səh, 269-286]. Hər il davamlı olaraq Digital Marketing Məntəqəsinin We are Social il' Hootsuite firmalarının hazırladıqları və 238 ölkədən taoplanan məlumatlar əsasında yayımlanan, "Digital Global Overview" adlı hesabatda sosial media platformalarının adları və istifadəçi sayları yayımlanmaqdadır. 2018 – ci il etibarı ilə dünya səviyyəsində toplam 3,297 milyard insanın sosial medaia istifadəçisi olduğu müşahidə edilmişdir [14, səh, 35-36].

Cədvəl 1: E- ticarətin ölkələr timsalında Qarşılaşdırılması (Qaynaq: TÜBİSAD,2014 10)

| Gelişmiş Ülkeler | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| **Ülkeler** | **Online Per./Top. Per** | **İnternet Penetrasyonu** | **Mobil Geniş Bant Penetrasyonu** | **Online Alışveriş Yapanlar** | **Mobil Alışveriş Yapanlar** | **Kişibaşı Gelir USD** | **Nüfus (Milyon)** |
| İngiltere | %12,2 | %89 | %86 | %64 | %18 | 39,5 | 64,5 |
| ABD | %8,4 | %87 | %87 | %56 | %17 | 54,6 | 319,0 |
| Almanya | %7,5 | %89 | %87 | %63 | %20 | 45,9 | 81,1 |
| Fransa | %6,2 | %84 | %67 | %49 | %12 | 40,4 | 63,9 |
| Japonya | %6,2 | %86 | %118 | %40 | %6 | 37,4 | 127,1 |
| İspanya | %3,1 | %77 | %70 | %44 | %17 | 33,7 | 46,5 |
| İtalya | %2,2 | %60 | %91 | %39 | %16 | 35,5 | 60,0 |
| **Gelişmekte olan Ülkeler** | | | | | | | |
| **Ülkeler** | **Online Per./Top. Per** | **İnternet Penetrasyonu** | **Mobil Geniş Bant Penetrasyonu** | **Online Alışveriş Yapanlar** | **Mobil Alışveriş Yapanlar** | **Kişibaşı Gelir USD** | **Nüfus (Milyon)** |
| Çin | %8,5 | %47 | %44 | %37 | %27 | 12,9 | 1367,8 |
| Polonya | %5,8 | %67 | %84 | %44 | %14 | 25,1 | 38,0 |
| Brezilya | %3,5 | %54 | %76 | %36 | %15 | 16,1 | 202,7 |
| Rusya | %3,3 | %60 | %55 | %30 | %8 | 24,8 | 143,7 |
| Hindistan | %1,5 | %19 | %8 | %14 | %9 | 5,9 | 1259,1 |

Cədvəl 1 - ə nəzər yetirsək onlayn pərakəndə ticarətin, ümumi pərakəndə ticarətdəki faiz nisbətlərinə baxılığı zaman İngiltərənin birinci sırada yer aldığı müşahidə edilir. Onlayn pərakəndənin ümumi pərakəndəyə nisbətinin ortalaması inkişaf etmiş ölkələrdə 6.5% olarkən, inkişəf etməkdə olan ölkələrdə isə 4.5 % görülməkdədir. Bu isə inkişaf etməmiş ölklərdə onlayn pərakəndənin inkişaf etmiş ölkələr nisbətdə daha az istifadə edildiyinin rəsmi göstəricisidir.

| **Ödeme Yöntemi** | **Payı** |
|---|---|
| Kredi Kartı | %79 |
| Banka Kartı | %5 |
| E-Cüzdan | %4 |
| Banka Transferi | %4 |
| Kapıda Ödeme | %4 |
| Ön Ödeme | %2 |
| Ön Ödemeli Kart | %1 |
| Diğer | %1 |

Cədvəl 2: E-ticarətdə Ödəniş Metodlarının Paylaşdırılması [15, səh, 56-65].

Cədvəl 2 – yə baxıldıqda isə e-ticarətdə ən çox istifadə edilən ödəniş metodunun 79% kimi yüksək bir rəqəmlə kredit kartlarından reallaşdırıldığı görülməkdədir. Kredit kartlarından sonra isə ən çox istifadə edilən ödəniş metodu isə bank kartları olaraq görülməkdədir, Bu isə onlayn ticarətdə kartla ödəniş metodunun insanlar tərəfindən ən çox istifadə edilən metod olduğunun ən böyük göstərgəsidir.

| **Ödeme Sistemi** | **Pazar Payı** |
|---|---|
| Visa | %58 |
| MasterCard | %40 |
| Yerel kart sistemleri | %1 |
| American Express | %1 |

Cədvəl 3: E – ticarətdəki Ödəniş Sistemlərinin Bazar Payları [15, səh, 56-65].

Cədvəl 3 – də ödəniş sistemlərinin Bazar payları analiz edilmiş bu payların ən böyük qisminin 54% olaraq Visa və onu 40% - lik nisbətlə izləyən Master Card olduğu görülməktədir.

**Turizm Sektorunda E- Ticarət və istifadə sahələri**

Yüz illərdir mövcud olan ticarət fəaliyyətləri, günümüzdə bazar yeri anlayışının yüksək bir dəyişikliyə uğrayaraq, elektron ticarət adı altında, məhsulların və xidmətlərin istehsal, təqdimat, satış, sığorta, təqdimat və ödəniş əməliyyatları kimi kompüter şəbəkələri vasitəsi ilə reallaşdırılmaqdadır [16, səh, 1-9].Günümüzdə insanların interneti effektiv bir şəkildə istifadə etməsi və keçmişə nisbətən daha məsuliyyətli istehlak təmin etməsi səbəbindən, turistik fəaliyyətlərdə iştirak etmək istəyən potensial turistlər, təyin etdikləri fikirləri həyata keçirmədən əvvəl internetdə araşdırmalar edərək düşüncələrinə yön verirlər. Beləliklə, potensial turistlər, araşdırma apararaq, fikirləri haqqında geniş məlumatlara çatır. Əvvəlcə yalnız məlumat əldə etmə məqsədilə istifadə olunan internet saytları

günümüzdə artıq, insanların satın alma qərarlarının verilməsində böyük təsiri olan, xidməti anında satın alma ilə sonlanabiləcək bir formaya çevrilmiş və gündən-günə daha da inkişaf etməkdədir. [11, səh, 113-115].

Hər bir sektorda olduğu kimi, turizm sektorunda da e-ticarətin əhəmiyyəti böyükdür. Turistik məhsulların bir araya gətirilməsi, tərtib edilməsi və istehlakçıya təqdim edilməsində məlumatın oynadığı əhəmiyyətli rola əsasən, e-ticarət, davamlı rəqabət üstünlüyünün saxlanılmasında əsas mənbə və stratejik bir silah halına gəlmişdir.

**Turizm Sektorunda E-Ticarətdən istifadəyə yönəlmiş biznes modelləri**

Elektron ticarət turizm sənayesinin bütün sahələrində istifadə olunur. Turizm sektorunda elektron ticarətin sıx istifadə olunduğu sahələr arasında havayolu fəaliyyətləri, qonaqlama müəssisələri, səyahət agentliyi, avtomobil kirayəsi, turizm bölgələrinin tanıtımı, broşura və kataloqların çapı və paylaşdırılmasında istifadə edilməkdədir. [17, səh, 271-278]. Bu anlayışlar baxımından isə fəaliyyətlər dörd əsas qrupa ayrılmaqdadır, Bunlar:

- Müəssisədən-Müəssisəyə (Business to Business – B2B)
- Müəssisədən Tükəticiyə (Business to Consumer – B2C)
- Tükəticidən Müəssisəyə (Consumer to Business – C2B)
- Tükəticidən Tükədiciyə (Consumer to Consumer – C2C)

Cədvəl 4: Turizm Sektorunda İstifadə edilən E-Ticarətdən istifadəyə yönəlmiş fəaliyyətlər [18, səh, 7-9].

| Elektronik Ticaret Uygulamaları | İşletme | Tüketici | Devlet |
|---|---|---|---|
| İşletme | B2B<br>Oteller, tur operatörleri, seyahat acenteleri ve turizm işletmelerinin karşılıklı yaptığı diğer faaliyetler | B2C<br>Nihai tüketicilerle tur operatörleri, oteller ve seyahat acenteleri arasında yapılan e-ticaret ilişkisi | B2G<br>İşletmelerin devlet kurumları ile yapmış oldukları e-ticaret işlemleri |
| Tüketici | C2B<br>Müşterilerden gelen teklif, öneri veya bir takım problemleri paylaşmaları sonucu oluşan e-ticaret ilişkisi | C2C<br>Tüketicilerin turizm faaliyeti yürüten işletmeler hakkında görülerini paylaşmaları sonucu ortaya çıkan e-ticaret ilişkisi | C2G<br>Tüketicilerin yaptıkları vize başvuruları veya istenen harita ve mevkii bilgileri |
| Devlet | G2B<br>Devlet kurumlarının standartlarla ilgili olarak acenteleri, konaklama işletmelerini denetlemesi ve bilgilendirmesi | G2C<br>Devletin tüketicileri sahip oldukları haklar, mevzuat, vize ve sağlık ve güvenlikleriyle ilgili konularda bilgilendirmesi | G2G<br>Devletin farklı ülkelerle yaptığı uluslararası projelerle ilgili e-ticaret işlemleri |

olaraq sıralanmaqdadır. Ancaq bu sıralamadan əlavə olaraq elektron ticarətdə istifadə edilən bir sıra fəaliyyətlər daha mövcuddur.

**Müəssisədən Müəssisəyə (B2B) yönəlmiş elektron ticarət biznes modelləri**

Elektron ticarəti, fiziki mühitlərdə klasik metodlarla həyata keçirən ticarətin, onlayn mühitdə həyata keçirilən tətbiqidir.Müəssisələr, tədarükçülər, tərəfdaşlar, rəqiblər ilə olan bütün əməliyyatları əhatə edən bir tətbiqdır. Müəssisədən Müəssisəyə elektron ticarət modeli, başqa sözlə desək elekton ticarət olaraq adlandırılaraq, alıcı ilə satıcı arasındakı bütünləşmənin tətbiq edildiyi elektron ticarət mühitidir.Bunu bir nümunə ilə açıqlayacaq olsaq:"Bir internet səhifəsi üzərində mağazalar, pərakəndə satıcılar və istehsalçılar arasında internet təminatlı bir əlaqə qururlar. Burda mağaza sahibinin üzərinə düşən tək vəzifə isə, bu sistemə üzv olmaq, üzv olduqda isə mağazada gün içərisində satılan ayaqqab miqdarı və çeşidləri hesabatları təqdim edilməkdədir, müəyyən alt və üst limitlərlə stok nəzarəti edilməkdə və müəyyən bir ayaqqabı çeşidində limitin altında stok olduğu müəyyən edilərsə, sistem mağaza adına toptancıya sifariş verir,Ödəniş isə daha əvvəl müəyyənləşdirilmiş kriteryalar çərçivəsində büdcədən avtomatik olaraq alınmaqdadır.Bu e-ticarət fəaliyyətində isə eyni sistem mağaza və istehsalçı arasında da işləməktədir.

Turizm sektorunda istifadə olunan bu elektron ticarət tətbiqi ilə birlikdə, qlobal rəqabətə qoşulma, avtomatlaşdırma xidmətləri ilə birlikdə insanların tətbiqi ilə qaynaqlanan xətaların azalmasına, kommunikasiya və ehtiyat maliyyələrinin də azaldılaraq maliyyə baxımıdan üstünlük əldə etməsinə köməklik edir. Ar-Ge fəaliyyətlərinin sürətlənməsinə və xidmət keyfiyyətinin artmasına təsir etməkdədir. Qlobal miqyastlı əməkdaşlıqlar ilə turizm sektorunda fəaliyyət göstərən müəssisələrin, yaranan regional böhranlardan ən az zərərlə çıxmalarını təmin etməkdədir. [18, səh, 56-58].

**Müəssisədən Tükəticiyə (B2C) yönəlmiş elektron ticarət biznes modeli**

B2C, yəni Müəssisədən tükəticiyə yönəlmiş olan elektron ticarət fəaliyyətii turizm sektorunda yayğın şəkildə istifadə olunur. Bu tətbiqi istifadə edən səyahət agentlikləri, tur operatorları, qonaqlama və nəqliyyat müəssisələri zəngin məzmunlu veb saytlarının köməyi ilə biletlərin satışı, rezervasiyaları, təqdimat və marketinq kimi bir çox fəaliyyəti həyata keçirir.

Müəssisədən tükəticiyə yönəlmiş elektron ticarət fəaliyyəti, məhsul təminatçıları üçün nəzərə alındıqda ödəniş çeşidliliyi, yeni bir satış və paylaşım kanalı olması səbəbi ilə, şirkətlər baxımından nəzərə alındıqda isə məhsul və ödəniş çeşidliliyi təklif etməsi, uyğun qiymət, xərc və vaxt qazancı, etibarlılıq və elastiklik kimi üstünlüklər təmin etməsi səbəbi ilə tez-tez istifadə olunan bir elektron ticarət fəaliyyətidir. B2C fəaliyyətinin tükətici baxımından isə məlumatı daha asan təmin etmə, uyğun qiymət, endirim imkanı, onlayn rezervasiya kimi üstünlükləri də mövcuddur [20, səh, 83-90].

**Tükəticidən Müəssisəyə (C2B) yönəlmiş elektron ticarət biznes modeli**

Fərdi istifadəçilər, müəssisələrin veb saytları vasitəsi ilə satmaq istədikləri məhsullarıvə ya , bir turizm müəssisəsinin məhsulunu tədarük etmək üçün istədiyi qiyməti təklif olaraq təqdim etməsi, bunun nəticəsi olaraq bu təklifin qəbul edilməsi və məhsulun satılması ilə sonlanan bir elektron ticarət fəaliyyətidir. Sezon sonları kimi adətən sektorun durğun olduğu dövrlərdə müəssisələrə qatqı saxlmaqdadır. C2B ticarət modeli havayolu şirkətləri ilə birlikdə qonaqlama fəaliyyətləri yerinə yetirən müəssisələr tərəfindən də istifadə olunur. Sezonun durğunlaştığı dövrlərdə işçilərindən bir qismini tətilə göndərmək istəyən bir müəssisə, elektron resurslar vasitəsi ilə səyahət agentliklərinə bir təklif verərək prosesin başlanmasını təmin edə bilər. Təklifin səyahət agentliyi tərəfindən qiymətləndirilib müsbət cavab alınması halında prosesin sona yetirilməsi formatına göstərilə bilər. [11, səh, 121-123].

**Tükəticidən Tükəticiyə (C2C) yönəlmiş elektron ticarət biznes modeli**

Bu tətbiq əsasən Tükəticilərin ehtiyac duyduqları bir məhsul və ya xidməti başqa bir tükətici tərəfindən tədarükdən təmin edilməsi nəticəsində yaranır. İkinci əl məhsulların (ev, avtomobil və s.) alınaraq satılmasında daha çox istifadə olunur.

C2C fəaliyyətinin turizm sektorundakı yansıması isə, tükəticilərin aldıqları xidmət ilə bağlı fikirləri, tövsiyələri və problemləri bir-birinə ötürməsi ilə yaranır. C2C tətbiqatı, turizm sektorunda fəaliyyət göstərən müəssisələrin, özü ilə əlaqədar müştəri davranışlarını ölçmək, istifadəçilərin şikayətlərini qiymətləndirmək və gələcəkdə işləmə üçün yeni siyasətlər təyin etmək məqsədi ilə istifadə olunur. Klassik metotlarla aparılan bazar araşdırmalarının daha uzun müddət alması və daha bahalı olması səbəbindən, elektron mühitlərdə yaradılmış bir neçə sorğu və formalar vasitəsi ilə müştərilərdən daha tez və asan geri bildirimlər əldə edilərək daha rahat bazar araşdırmaları aparılabilir. Tükəticidən tükəticiyə ticarət fəaliyyətində, tükəticilərin paylaşdıqları məlumatların toplanması ilə daha uğurlu bir siyasəti tətbiq etmək mümkündür.

**Tədqiqat Metodu**

Bu məqalədə xarici və yerli ədəbiyyatdan istifadə edilərək turizm sektorunda e-ticarətin müsbət və mənfi cəhətləri qeyd edilmişdir. Məqalədə Turizm Sektorunda e – ticarətin istifadəsinin mahiyyətinə yer verilmiş, Turizm sektoru üçün e- ticarət anlayışının nə dərəcədə əhəmiyyət kəsb etməsi və bu anlayışın turizm sektorunda istifadəsinə yönəlmiş biznes modellərindən bəhs etmişəm. Tədqiqat zamanı elektron ticarət anlayışının düzgün bir şəkildə tərtib edilməsi baxımından lazım olan əsas prinsiplərin seçilməsi, və turizm sektorunda istifadə edilən elektron ticarət biznes modellərinin uzun müddətli olmasının nə dərəcədə əhəmiyyət kəsb etdiyi barəsində məlumatlara yer verilmişdir.

**Nəticə**

Texnologiyaların sürətlə inkişaf etməsi və elekton ticarətin yayğınlaşması ilə birlikdə turizm sektorunda fəaliyyət göstərən bir çox müəssisə bu sahədəki inkişaf perspektivlərini izləyərək fürsətlərdən yararlanmış və internet üzərində xidmət göstərməyə başlamışdır.Elektron ticarətə sürətlə ayaq uyduran və inkişafı yaxından təqib edən turizm müəssisələri ciddi qazanclar əldə etmişlərdir,

Ancaq bu sahədə fəaliyyət göstərən müəssisələrin sayı artdıqca digər müəssisələr ilə rəqabət etməkdə çətinləşmişdir.Turizm sektorunun kompenentlərindən olan nəqliyyat müəssisləri, səyahət agentləri tur operatorları, qonaqlama müəssisələri yaşanan yüksək rəqabət mühitində ayaqda qalmaq üçün texnoloji inkişafı təqib edərək yeni mühitə ayaq uydurmaları lazımdır, bu səbəbdən aslı olaraq hər bir müəssisə e-ticarət biznes modellərini düzgün tətbiq etməyi bacarmalı, müştərinin ehtiyac istəklərini qarşılamağı bir müəssisə missiyası olaraq qəbul etməlidir.

**ƏDƏBİYYAT SİYAHISI**

1. Akar, E. ve Kayahan, C. (2010) Elektronik Ticaret ve Elektronik İş, (2. Baskı) Nobel Yayın ve Dağıtım. Ankara. 15 – 25
2. Sözer, B. (2002) Elektronik Sözleşmeler, Beta Yayınevi (I. Baskı). İstanbul. ISBN 975-295-087-6. 7 – 23
3. Metin, İ. (2012) İhracatçı ve İthalatçılar İçin Elektronik Ticaret, Nobel Yayınevi, Ankara. 21-25
4. Casson, Herbert N. (1999) Ticaretin Sırları, Hayat Yayıncılık, İstanbul, Editör: Kadem Çalış. 7 – 10
5. Ayata, Ş. (1968) Ticaret Bilgileri, Özel Türk Ticaret Koleji Yayınları, İzmir. 19 – 23
6. Küçükyılmazlar, A. (2006) Elektronik Ticaret Rehberi, İstanbul Ticaret Odası Yayınları, 2006-3, İstanbul. 6 – 9
7. Büyükyıldırım, Ü. (2009). Yeni Başlayanlar İçin E-Ticaret Girişimciliği İçin Temel Başvuru Kılavuzu. 3 – 10
8. Pırnar, İ. (2005) Turizm Endüstrisinde E-Ticaret, Ekonomik ve Sosyal Araştırmalar Dergisi, Güz 2005, 1: 28-55
9. Elibol, H. Kesici, B. (2004) Çağdaş İşletmecilik Açısından Elektronik Ticaret. 306 – 308
10. Doğan, Z., Haşimoğlu, A. B. (2002). 2002 Yılına doğru yeni ekonomi kavramı üzerine genel bir değerlendirme ve elektronik ticaret kavramı, Kocaeli Üniversitesi İİBF İktisat ve İşletme Bölümü, I. Ulusal Bilgi, Ekonomi ve Yönetim Kongresi / Bildiriler Kitabı, Kocaeli. 806 – 808
11. Çavuşoğlu, M. (2010) Konaklama İşletmelerinde Elektronik Ticaret Kullanımı: Gökçeada ve Bozcaada'da Bir Araştırma, Girişimcilik Ve Kalkınma Dergisi (5:2). 113 - 123
12. Erbaşlar, G. Ve Dokur, Ş. (2012) Elektronik Ticaret (2.Baskı) Nobel Yayınevi, Ankara. 29 – 33
13. Minaz, A. ve Bozkurt, Özlem Ç. (2017). Üniversite Öğrencilerinin Akıllı Telefon Bağımlılık Düzeylerinin Ve Kullanım Amaçlarının Farklı Değişkenler Açısından İncelenmesi, Mehmet Akif Ersoy Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi Cilt.9 Sayı. 21 (Özel Sayı) 2017 Ekim. 268 – 286
14. Saçlı,Ç., Efe, D., Sunar, H. ve Ersöz, B. (2018). Turizmde Online Müşteri Deneyimleri İle İtibar Yönetimi Arasındaki İlişki Ve Örnek Uygulamalar, The Second International Congress On Future Of Tourism, Innovation, Entrepreneurship and Sustainability Proceedings Book. 34 – 40.
15. Payment System Magazine (2015) Aralık Sayısı, Sayı. 56 – 65
16. Sardarov, E. (2012) Turizm' de B2B Uygulaması, İzmir. 1 – 9
17. Kozak, M. & Sarı, Y. (2005).” Turizm Pazarlamasına İnternetin Etkisi: Destinasyon Web Siteleri İçin Bir Model Önerisi” Akdeniz İ.İ.B.F. Dergisi. 248 – 278
18. Yılmaz, B.S. ve Öncüer, M.E. (2005a), ”Bilgi Ekonomisinin Turizm Endüstrisinde Yol Açtığı Değişimler. 7 – 9
19. Marangoz, M.; Yeşildağ, B.& Saltık, I. (2012). “E-Ticaret İşletmelerinin Web Ve Sosyal Ağ Sitelerinin İçerik Analizi Yöntemiyle İncelenmesi” İnternet Uygulamaları ve Yönetimi Dergisi. 56 – 58
20. Sarısakal, M.N. & Aydın, M.A. (2003). “E-Ticaretin Yeni Yüzü Mobil Ticaret” Havacılık ve Uzay Teknolojileri Dergisi. 83 – 90
21. https://www.falconx.az/az/bloq/elektron-ticaret-nedir (23.03.2024)

# ISTEHLAKÇI HÜQUQLARININ MÜDAFİƏSİ MEXANİZMİ

**BALLI ƏLIZDƏ**
**BAKI MÜHƏNDISLIK UNIVERSITETI**
İqtisadiyyat və İdarəetmə/İstehsalat və xidmət sahələrinin iqtisadiyyatı və idarə edilməsi (sənaye üzrə)
*Belizade@std.beu.az*
BAKI, AZƏRBAYCAN

**XÜLASƏ**

İstehlakçı hüquqlarının müdafiəsi, öz universallığını və yeniliyini heç bir zaman itirməyən həyatı əhəmiyyət kəsb edən bir məsələdir. İstehlakçı hüquqlarının müdafiəsi səylərində ən mühüm məsələ şübhəsiz ki, istehsalda standartlaşma və keyfiyyətin təmin edilməsi, çəki və ölçüyə nəzarət, bazarların tənzimlənməsi və yoxlanmasıdır. Bu, bir ölkədə yaşayan bütün insanları narahat edən çox mühüm, mürəkkəb və həlli çətin olan bir məsələdir. Əsasən demək olar ki, hər yerdə istehlakçının əleyhinə olan istehsalçı\ satıcı-istehlakçı balansını tənzimləmyi, ən azından mümkün olduğu ölçüdə azaltmağı hədəf alır. İstehlakçının satın aldığı mal və xidmətlərlə bağlı olaraq sağlamlığının və can güvənliyinin təhlükəyə düşməməsi, aldığı məhsullar üçün ödədiyi pulun tam dəyərini alabilməsi,qüsurlu məhsul istehsalı və s. kimi səbəblərdən dəymiş zərərin ödənilməsi, istehlakçı olaraq ona aid olan qərarlarda təmsil olunmaq bu gün dünyada ümumi olaraq qəbul edilən istehlakçı hüquqları kimi tanınır. İstehlakçılar bazarda çox sayda fərqliləşdirilmiş məhsullarla, eyni məhsul üçün fərqli şatış nöqtələrində, fərqli qiymətlərlə, keyfiyyəti aşağı olan məhsul və aldadıcı reklamlarla qarşı-qarçıya qalırlar. Güclü istehsalçılar və satıcılara qarşı nisbətən zəif tərəf olan istehlakçılar, aldıqları məhsullarda hər hansı bir problemlə qarşılaşdıqda nə edəcəklərini və hara müraciət edəcəklərini bilmədikdə qurbana çevrilirlər. Elə buna görə də istehlakçılar sahib olduqları hüquqları və bu hüquqlardan necə istifadə edəcəklərini bilməlidirlər. Məhz tədqiqatımızın əsas hədəfi istehlakçıların hüquqlarını araşdırmaq, bu mövzuya aydınlıq gətirmək və qısa da olsa bu mövzu haqqında məsələləri müzakirə etməkdən ibarətdir.

**AÇAR SÖZLƏR:** İstehlakçı, İstehlakçı Hüquqları, İstehlakçının müdafiəsi, İstehlakçının müdafiəsinin məqsədi, Bazardan sonra və əvvəl istehlakçı hüquqları, İstehlakçı şürası, Qəbul edilən prinsiplər, Şuranın vəzifələri, İstehlakşıların əsas hüquqları.

## GIRIŞ

## 1. İSTEHLAKÇI VƏ İSTEHLAKÇI HÜQUQLARININ MÜDAFİƏSİ

İstehlakçı hüquqlarından danışmazdan əvvəl istehlakçı anlayışına aydınıq gətirək. Belə ki, istehlakçı anlayışı bir çox mövzularda araşdırılmış və bu mözuda çox sayda iqtisadçıların fikirləri ortaya çıxmışdır. Bu fikirlərdən bir neçəsi ilə tanış olaq:

Altunısık-Özdemir və Torlakın fikrincə, istehlakçı "həyatda qalmaq üçün müxtəlif məhsul və ya xidmətlərə ehtiyac duyan və bu ehtiyacları ödəmək üçün əlində imkanı olan bir şəxsdir" (Altunısık vd., 2006, 64).

Asselin fikrincə, istehlakçı " iqtisadi məhsul və xidmətləri müəyyən bir qiymət qarşılığında onu alan və istifadə edən şəxsdir" (Assael, 2003, 2).

Bauman isə istehlakçını, istehlak edən şəxs kimi ifadə edir. İstehlak anlayışını da hər hansı bir əşyanı istifadə etmək, başqa sözlə desək, məhsul və xidmətlərdən istifadə edərək, ehtiyac və ya istəklərin hər hansı bir formada ödənilməsi olaraq qeyd etmişdir (Bauman'dan aktaran Çağlar, 2001, 3).

Bundan əlavə Loundon və Bittaya görə istehlakçı, "fərdi və ya ailə olaraq istehlak məqsədi ilə məhsul və ya xidmətləri satın alan şəxslərdir. Misal üçün tətil ediləcək yerin müəyyən edilməsi və ya yeni bir maşın alınan zaman alış qərarının verilməsi üçün bütün ailə üzvlərinin fikirləri ifadə edilərkən, yetişkin bir fərdin istifadə edəcəyi hər hansı bir paltarı alan zaman bu qərarı özü verir. İstehlakçı, bəzi hallarda bütün ailə üzvlərini təmsil etsədə, bəzən tək bir adamdır" (Loudon&Bitta, 1993, 5-6).

Yuxarıda qeyd edilən fikirlərdən ortaq bir nəticəyə gəlmək olarki istehlakçı, bir məhsul və ya xidməti fərdi və ya ailə istifadəsi üçün alan və ya istifadə edən şəxsdir.

İndi isə istehlakçıların hüquqları haqqında məlumat verək. İqtisadi fəaliyyətin əsas məqsədi insanların ehtiyaclarını ödəməkdir. Ehtiyaclarını ödəmək üçün mal və xidmətlərin insan tərəfindən birbaşa istifadəsi isə istehlak faktını təşkil edir. İstehsal və paylama fəaliyyətlərinin əsas məqsədi də istehlaka xidmət etməkdən ibarətdir.

İstehlakçı hüquqlarının müdafiəsi sistematik tədbir kimi kapitalizmi dözülməz hala gətirməyin yollarından biri kimi qəbul edilə bilər. Tərifi 20-ci əsrin terminologiyasına əsaslandırsaq, deyilə biləcək ən konkret ifadə istehlakçının müdafiəsinin bir insan hüququ olmağıdır. "Qoruma" məhz bu insani hüququn tanınması mənasını verir. Tərifi genişləndirdiyimiz zaman, istehlakçının aldadılmasına və yanlış qərarlar qəbul edilməsinə səbəb olacaq bütün məsələlərlə bağlı məlumatlandırılması və öz hüquqlarını tələb etmələri mənasını da ortaya çıxarır. İstehlakçı hüquqlarının müdafiəsi anlayışı müxtəlif ekspertlər tərəfindən fərqli şəkildə müəyyən edilmiş və bir-birində fərqli kimi görünən, alqı-satqı funksiyalarında istehlakçının zərər çəkən tərəf olmağı, zəif qalmağı və bazarda gücünü artırmaq üçün öz hüquqlarını müdafiə etmələri diqqət mərkəzində olmuşdur.

Bəziləri üçün istehlakçıların müdafiəsi: Alqı-satqı prosesində güc balansının reaksiyası və bu ədalətsizliyi aradan qaldıracaq səylərdir (TÜSİAD "AT'de Tüketiciyi Koruma Politikaları ve Türkiye'de Durum"İstanbul, Nisan 1990, s.4.)

Bəzilərinə görə isə "İstehlakçının müdafiəsi onun ödədiyi həqiqi qiymətlə tarazlaşdırılmış, ona təqdim edilən keyfiyyət və kəmiyyətlərə uyğun olan məhsul əldə etməyə imkan verən sifarişlərin yaradılaraq işlək halda tutulmasıdır"( Salahattin Özmen. "KİT' in Özelleştirilmesinde Tüketiciyi Koruma Önlemleri Unutulmamalıdır", Maliye Yazıları, Maliye-İktisat-Hukuk_.19-21 Temmuz/Aralık 1989, s.7.)

Verilən tərif və ya rəylərin əksəriyyətində istehlakçı müdafiəsi anlayışından, istehlakçıların təşkilatlanmasından, onların sosial qrup olmasından, istər rəsmi, istərsə də özəl fəaliyyətlərindən aslı olmayaraq müxtəlif qurumların alqı-satqı əməliyyatlarında zəif tərəf olan alıcının bazardakı gücünü, rifahını, sağlamlıq və təhsil səviyyəsini artırılması kimi başa düşülür. Belə olduqda sözügedən tərifl ərdə həddindən artıq durulmur, lakin istehlakçı hüquqlarını qorumaq məqsədi ilə təşkilatlara kifayət qədər yer ayrılmır. Halbuki, istehlakçının müdafiəsi təkcə istehlakçını qorumaq deyil, eyni zamanda onunla əlaqəli təşkilatları və xüsusilə ona necə kömək edilməsi haqda mövzuları da nəzərə almalıdır. Bu istiqamətdə qeyd edilən bir fikirə görə isə istehlakçının müdafiəsi "İstehlakçı hüquqlarına zərər verən əməliyyatlara qarşı bu hüquqları qorumaq üçün hökumətin, müəssisələrin və müstəqil təşkilatların getdikcə daha çox fəaliyyətlər silsiləsidir".

Bundan əlavə olaraq istehlakçıların müdafiəsini istehsal və satıcılara nisbətən daha zəif vəziyyətdə olan istehlakçıların bazarda gücünü artırmağı hədəfləyən bir sosial hərəkət kimi də qeyd etmək olar.

İstehlakçıların hüquqlarının müdafiəsidə istehlakçıların zərərlərinin kompensasiya edilməsi mühüm yer tutur. İstehlakçının univerisal hüquqlarından biri olan kompensasiya almaq hüququ, istehlakçıya qüsurlu mal satıldığında və ya natamama xidmət göstərildiyində istehlakçıya dəymiş maddi və ya mənəvi zərəri ödəmək və ya istehlakçının hüquqlarını qorumaq məqsədi ilə zəruri hüquqi tədbirlər görməkdən ibarətdir.

İstehlakçının qarşılaşdığı problemlərlə bağlı hüququnu tələb etməsi və maneələr qarşısında hüququndan imtina etməməsi üçün hüquq axtarma vasitələrinin ağla batan olması lazımdır. Xüsusilə istehlakçının müqavilənin daha zəif tərəfi olması və münaqişə mövzusu məbləğin ümumiyyətlə aşağı olması səbəbi ilə hüquq axtarma vasitələrinin ucuz, sürətli və sadə olması daha vacibdir. Mübahisələrin məhkəmədə həll edilməsi uzun, mürəkkəb və bahalı olması səbəbi ilə məhkəməyə verilməzdən əvvəl həll edilməsi tələb edilir. Məhkəmələrdən kənar müdaxilələr daha effektli, ucuz və tez bir zamanda eyni zamanda etibarlı olmalıdır.

İSTEHLAKÇININ BAZAR MƏRHƏLƏSİNDƏN ƏVVƏL VƏ SONRA MÜDAFİƏSİ

Cəmiyyətdə özəlliklə istehlakçıların bazar mərhəlsində zərərlə qarşılaşdıqları məlumdur. Lakin istehlakçıları təkcə bazar mərhələsində qorumaq kifayət deyil. Bu səbəbdən istehlakçıların müdafiəsi prosesi ilk növbədə istehsal mərhələsindən başlamalıdır (Yeniçeri, 1996:121. ).

İstehlakçıların qorunmasında ən vacib məsələlərdən biri, şübhəsiz ki, ədalətli bazar nizamının yaradılmasıdır. Çünki, azad rəqabətin təmin olunmdığı, bazarların yoxlanmadığı, ölçü və tərəzinin nəzarət olunmdığı, inhisarçılığın və spekulyasiyanın qarşısının alınmdığı bir bazarda istehlakçıları qorumaq mümkün deyildir.

İSTEHLAKÇININ MÜDAFİƏSİNİN SƏBƏBLƏRİ

İstehlakçı hüquqlarının müdafiəsinin əsas səbəbləri kimi aşağıdakıları qeyd edə bilərik:

- İstehlakçıların satınalma ilə bağlı kifayət qədər texniki biliyi və təlimi olmadığı üçün, yalnış reklamlar, öz duyğularının və ya ətraf mühitin təsiri altında hərəkət etməyə meyillidirlər. Bu tendensiya da her satınalma prosesində diqqətli və dəqiq yoxlama və qiymətləndirmə etmələrinə mane olur.
- Müəssisələrin öz malları və xidmətləri haqqında məlumatverici olmaqdan çox emosional keyfiyyətli və ya aldadıcı reklamlara istiqamətlənmələri və ya həddindən artıq şişirtmələri istehlakçıların düzgün seçim etmələrini çətinləşdirir.
- İstehlakçılar aldıqları mal və ya xidmətdən məmnun qalmadıqda və ya gözlədiklərini ala bilmədiklərində psixoloji narahatlıq hiss edirlər. Reklamlarda göstərildiyi kimi səmərəli işləməyən məişət əşyaları və ya qida təminatları, verdiyi qarantilər və bahalı zəmanət sənədləri tam yerinə yetirilmədikdə bu məsələlərlə bağlı istehlakçıların narazılığı və şikayətləri həddindən artıq çoxdur.
- İstehlakçılar bazarda mövcud malların markaları, qiymətləri və keyfiyyətləri haqqında yetərli məlumata sahib olmadıqlarında, onlar adekvat qiymət-keyfiyyət müqaayisəsi apara bilmirlər. Nəticədə, yanlış seçim nəticəsində narazılıqlar meydana çıxır.
- Eyni ehtiyac üçün müxtəlif marka, etiket və qablaşdırılmada bir-birinə çox oxşar malların bazara təqdim edilməsi, istehlakçıları çaşdıraraq malların həqiqi dəyəri haqqında da şübhə yaranmasına səbəb olur.
- İnflyasiya şəraitində qiymətlərin daim artması istehlakçıların alıcılıq qabiliyyətini azaldır və qiymət artımına səbəb olur. Bundan əlavə, alınan mallara görə faktiki dəyərindən çox pul ödənildiyinə dair şübhə yaranarsa ayrı bir narahatçılıq yaranacaqdır.

Bundan əlavə, istehlakçılar və istehsalçılar bir-birlərinin hüquqlarına hörmət etməyə borcludurlar. Bu səbəbdən dolayı ticarətdə satış üzərinə satış, bazarlıq üzərinə bazarlıq etmək və eyni zamanda satıcıların bazara girməzdən əvvəl yolda qarşılanması, şəhər sakinlərinin kəndlilər adından satış etməsi kimi məsələlər insanın ticarət hüquq və azadlıqlarına hörmətsizlik davranışlar kimi qeyd edilir.

İSTEHLAK ŞURASI

İstehlakçıların hüquqlarının müdafiəsi haqqında qanunda İstehlakçı Şurasının heç bir tövsüyə və məsləhət verən təşkilat olmadığı bildirilir. Qanundakı ifadəsi ilə şura istehlakçının problemlərinin, ehtiyac və maraqlarının müdafiəsi üçün zəruri tədbirlər araşdırmaq, problemlərin istehlakçıların xeyrinə həll edilməsi üçün görüləcək tədbirləri araşdırmaq, bu Qanunun icrası ilə bağlı tədbirlərə dair rəyləri aidiyyəti orqanlara çatdırmaq məqsədi ilə yaradılmışdır.

İstehlakçı şurasının vəzifələri aşağıdakılardır:

- İstehlakçıların ehtiyac və maraqlarının müdafiəsi ilə bağlı tədbirlər haqqında araçdırma və tədqiqatlar aparmaq;
- İstehlakçı problemlərinin istehlakçının xeyrinə həll edilməsi üçün görüləcək tədbirlərlə Qanunun icrası ilə bağlı təkliflər barədə qərar qəbul etmək və bununla bağlı aidiyyəti orqanlara çatdırmaq;
- İstehlakçıların hüquqlarının müdafiəsi ilə bağlı qanunvericilik təklifləri, reqlamentlər və yüntəmlət haqqında rəy formalaşdırmaq və təkliflər vermək;
- İstehlakçıların hüquqlarının müdafiəsi sahəsində inkişafları izləmək və qiymətləndirmək;
- İstehlakçıları məlumatlandırmaq və maarifləndirmək üçün kitab, jurnal, radio və televiziya proqramları yaradılması ilə baölı prosedur və prinsiplər haaqqında təkliflər irəli sürmək;
- Şuraya qatılan istehlakçı təşkilatlarının təmsilçiləri arasında reklam şurasına göndəriləcək üzvü seçmək;
- Müəssisənin məqsədinə uyğun olaraq digər vəzifələri yerinə yetirmək.

İstehlakçının iqtisadi maraqlarının müdafiəsi ilə bağlı bir sıra prinsiplər müəyyən edilmişdir. Qəbul edilən prinsiplər aşağıdakılardır:

- Məhsul və xidmətləri satın alanlar satıcının səlahiyyətlərindən sui-istifadə edilməsinə qarşı, xüsusilə birtərəfli müqavilələr, əsas hüquqların müqavilələrdən ədalətsiz şəkildə çıxarılması, ağır kredit şərtlərinə, istənməyən məhsullar üçün ödəniş və edilən təzyiqlər satış üsullarından qorunmalıdır;
- İstehlakçılar qüsurlu məhsul və qeyri-qənaətbəxş xidmətlər səbəbindən iqtisadi mənafelərinə vurulan zərədən qorunmalıdır;

- Satış zamanı etiketlərdə və ya reklamlarda olan bütün məlumatlar dəqiq və aydın olmalıdır;
- İstehlakçılara təklif edilən məhsul və xidmətlər yetərincə müxtəlif olmalıdır ki, onlara kifayət qədər seçim imkanı verilsin;
- Təmir üçün lazım olan ehtiyyat hissələri də daxil olmaqla, davamlı istehlak məhsulları üçün istehlakçıya satış sonrası xidmətlər göstərilməlidir;
- Maliyyyə xidmətləri də daxil olmaqla məhsul və xidmətlərin təchizatı və təkmilləşdirilməsi birbaşa və ya dolayı olaraq bir məhsul və xidmətləri tələb edən insanlara yönəlməməlidir;
- Reklam istər vizual, istərsə də audi olsun heç bir halda məhsul və xidmətin potensial alıcısını yanıltmamalıdır.

İSTEHLAKÇILARIN ƏSAS HÜQUQLARI

İstehlakçıların müdafiəsi ilə bağlı cəmiyyət tərəfindən qəbul edilən əsas prinsiplər aşağıdakılardır: (Baykan,1996, 79)

- İstehlakçının sağlamlığını və təhlükəsizliyini qorumaq hüququ;
- İstehlakçıların öz iqtisadi maraqlarının müdafiəsi hüququ;
- İstehlakçının zərərə görə kompensasiya almaq hüququ;
- İstehlakçının məlumat və təhsil almaq hüququ;
- İstehlakçının təmsil edilmək hüququ.

## 2. TƏDQIQAT METODU

Məqalədə yerli və xarici mənbələrdən istifadə edilərək istehlakçı və onların müdafiəsindən danışılmışdır. Bu məqalədə bir sıra iqtisadçıların fikirlərinə əsaslanaraq istehlakçı kimdir? sualına aydınlıq gətirmişəm. Və eyni zamanda istehlakçının müdafiəsinin səbəblərini, bu qrupların görəcəkləri işləri haqqında qısa da olsa qeydlər etmişəm. Məqalədə istehlakçı hüquqlarının effektliyini dəyərləndirmək üçün elmi əsərlərdən götürülmüş fikirlər və məlumatlar təqdim edilir. İstehlakçı hüquqlarının müdafiəsi sahəsində ən mühüm məsələlərdən biri, şübhəsiz ki, istehsalda standartlaşmanın təmin edilməsi və istehsal olunan mal və xidmətlərin keyfiyyətinin müəyyən edilməsidir. Bu səbəbdən də keyfiyyətli mal və xidmətlər üçün müəyyən standartlar işlənib hazırlanmışdır.

## 3. NƏTICƏ

İstehlakçıların hüquqlarının müdafiəsi anlayışı son illərdə ortaya çıxan bir anlayış deyildir. İstehlakçı hüquqlarının müdafiəsinin əsas məqsədi istehlakçıların sahib olduqları hüquqlarından məlumatlı olmasına və alış-verişdlərində daha şüurlu davranmalarına kömək etməkdir. Çox vaxt nisbətən güclü olan müəssisələrin və istehsalçıların qarşısında zəif tərəf olan istehlakçıların qorunması üçün lazım olan tənzimləmələrin icra edilməsi istehlakçıların qorunması baxımından yetərli deyildir. İstehlakçını ən yaxşı qoruyacaq olan ele istehlakçının özüdür. İstehlakçı əgər hansı hüquqlara sahib olduğunu bilmirsə və bunun haqda hər hansı bir məlumata sahib deyilsə, istehlakçının müdafiəsi mümkün deyildir. Şüurlu istehlakçı, alacağı məhsul və ya xidmətləri keyfiyyət və qiymət baxımından müqayisə edərək, ödədiyi qiymət ilə əldə etdiyi fayda arasında əlaqə qurur. Bundan əlavə, şüurlu istehlakçılar uzunmüddətli perspektivdə müəssisələrin məhsul və xidmətlərinin keyfiyyətinin yüksəldilməsinə dəstək verərək, bu istiqamətdə inkişafı təmin etməyə kömək olacaqdır. İstehlakçının müdafiəsinə əhəmiyyət verən ölkələr həm ölkə daxilində, həm də ölkə xaricində sosial rifahın və ümumi kommmersiya münasibətlərinin inkişafını təmin edəcəklər. Bunun nəticəsində isə onlar daha çox gəlirli və eyni zamanda böyük iqtisadi inkişafa nail olacaqlar. İstehlakçı hüquqlarının düzgün işləməsi üçün effektiv nəzarət və audit mexanizminin yaradılması və istehlakçı şikayətlərinin çatdırılması çox vacibdir. Son nəticə kimi onu qeyd edə bilərik ki, ölkənin daha da inkişaf etməsi və müəssisələrin müvqeylərini tutaraq rifah əldə etmələri üçün istehlakçı və istehsalçı hüquqlarına və onların müdafiələrinə əməl edilməlidir.

**ƏDƏBIYYAT SIYAHISI**

1. Tuncer Tokol, "Pazarlama Açısından Tüketicinin Korunması", Bursa İktisadi ve İdari Bilimler Akademisi Yayını, 1977. s.22-24.
2. Salahattin Özmen. "KİT' in Özelleştirilmesinde Tüketiciyi Koruma Önlemleri Unutulmamalıdır", Maliye Yazıları, Maliye-İktisat-Hukuk_.19-21 Temmuz/Aralık 1989, s.7.
3. TÜSİAD "AT'de Tüketiciyi Koruma Politikaları ve Türkiye'de Durum"İstanbul, Nisan 1990, s.4.
4. LOUDON, David; DELLA BITTA, Albert. (1993). *Consumer Behavior*, Fourth Edition, McGraw-Hill Interational Editions, Singapore.
5. F.H. Hacıyev, E. M. Hüseynov "İstehlakçı Biliklərinin Əsasları s.48".
6. İstanbul Ticaret Gazetesi, "Tüketici Koruma Yasa Tasarısı Meclis Komisyonu'nda", 20 Kasım 1992, s.5.
7. Yedinci Bes Yıllık Kalkınma Planı Özel Đhtisas Komisyonu Raporu, 1994, 8

# ZƏRGƏRLİK MƏMULATLARI İSTEHSALINDA İSTİFADƏ EDİLƏN QİYMƏTLİ DAŞLARIN NÖVLƏRİ VƏ KEYFİYYƏTİNİN EXPERTİZASI

**Xanalıyeva Aişə**
Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)
aishaxanaliyeva@gmail.com
Mühəndislik
BAKI AZƏRBAYCAN

**XÜLASƏ**

Zərgərlik məmulatlarının istehsalında istifadə edilən qiymətli daşların növləri və keyfiyyətinin ekspertizasına həsr edilmişdir. Buarda qiymətli daşların tarixindən, xamalından, çeşidindən, eyni zamandada qiymətli daşlardan almazın, aqatın, firuzənin və bir çox qiymətli daşların xüusiyyətlərindən bəhs edilmişdir. Eyni zamanda zərgərlikdə istifadə edilən qiymətli daşların keyfiyyəti haqqında məlumat verilmişdir.

Vizual müayinə zamanı adətən daşın rəngini, aydınlığını, kəsilməsini və karat çəkisini ("4 Cs") qiymətləndirmək üçün vizual yoxlama ilə başlayır. Daşlar çalarlarına, doymalarına və tonlarına görə qiymətləndirilir ki, bu da onların dəyərinə əhəmiyyətli dərəcədə təsir edə bilər. Hər hansı daxili qüsurların (daxilolmaların) və ya xarici ləkələrin olması aydınlığı müəyyən etmək üçün böyüdülmə altında yoxlanılır. Daşın kəsilməsinin dəqiqliyi, nisbətləri, simmetriyası və cilalanması onun parlaqlığını və parıltısını qiymətləndirmək üçün qiymətləndirilir. Daşın çəkisi onun kütləsinə nisbətən ölçüsünü müəyyən etmək üçün ölçülür. Gemoloqlar daşın xüsusiyyətlərini daha da araşdırmaq üçün xüsusi alətlər və üsullardan istifadə edirlər. Nəhayət, daşın qiymətləndirilmiş xüsusiyyətləri, bazar tələbi və nadirliyi ilə yanaşı, onun dəyərini müəyyən etmək üçün nəzərə alınır.

Mənbə, tarixi əhəmiyyət və bazar meylləri kimi amillər də onun dəyərinə təsir edə bilər.

Gemoloqlar hərtərəfli müayinə və təhlillər apararaq zərgərlik məmulatlarında istifadə olunan qiymətli daşların həqiqiliyini və keyfiyyətini təmin edir, qiymətli daş bazarında alıcı və satıcılara inam yaradır.

İstehlakçılar zərgərlik məmulatlarında istifadə edilən qiymətli daşları araşdırarkən, üstünlüklərini və gözləntilərinə cavab verən keyfiyyətli məhsul əldə etmələrini təmin etmək üçün adətən bir neçə əsas xüsusiyyətə diqqət yetirirlər. İstehlakçılar tez-tez daşın rəngini qiymətləndirir, canlılıq, zənginlik və hətta paylama axtarırlar.

Üstünlük şəxsi zövqə və qiymətli daşın növünə görə dəyişə bilər, bəziləri aydın, sıx çalarları arzulayır, digərləri isə daha yumşaq, daha incə tonlara üstünlük verirlər. Nəhayət, istehlakçıların

seçimlərinə üslub, zövq və zərgərlik məmulatlarının təyinatı daxil olmaqla şəxsi üstünlükləri təsir göstərir.

Bəziləri fərdi seçimlərinə və satın almanın əhəmiyyətinə əsaslanaraq müəyyən qiymətli daşları digərlərindən üstün tuta bilər.

***AÇAR SÖZLƏR Qiymətli daşlar,istehlak xassələri, daşların karatı, ümumi çəkisi,labaratoriyada yoxlamaq.***

## GİRİŞ

Cazibədar gözəlliyi və davamlı cazibəsi ilə məşhur olan qiymətli daşlar minilliklər boyu zərgərlik məmulatlarının incə bəzək əşyaları kimi qiymətləndirilib. Brilyantların valehedici parıltısından tutmuş yaqut, zümrüd və sapfirin zəngin çalarlarına qədər bu qiymətli daşlar mədəniyyətləri və nəsilləri aşan zamansız cazibəyə malikdir. Estetik cəlbedicilikdən əlavə qiymətli daşlar sevginin, statusun və mədəni irsin simvolu kimi xidmət edən dərin simvolik mənalar daşıyır. Biz zərgərlikdə istifadə edilən qiymətli daşların füsunkar dünyasına daxil olarkən onların təkcə müstəsna gözəlliyini deyil, həm də heyrətamiz geoloji mənşəyini, mürəkkəb sənətkarlığını və ilhamlandırdıqları dərin emosional əlaqələri üzə çıxarırıq. Hər bir qiymətli daşın möcüzə, zəriflik və davamlı əzəmət hekayəsindən bəhs etdiyi brilyantların, yaqutların, zümrüdlərin, sapfirlərin və digərlərinin parıldayan səltənətləri ilə tanış olmağa və dərindən öyrənməyə imkan yaradır.

***Qiymətli daşların növləri çoxdur biz əsasən aşağıdakı daşlar haqqında geniş məlumat verməy çalışmışıq.***

***Almazın.*** Mənşəyi bəşəriyyətə məlum olan ən sərt təbii maddə olan almazlar böyük təzyiq və temperatur altında yer mantiyasının dərinliklərində əmələ gəlir.

***Xüsusiyyətləri:*** Parlaqlığı ilə tanınan brilyantlar müstəsna aydınlıq, sərtlik və yanğın nümayiş etdirir, bu da onları zərgərlik və sənaye tətbiqləri üçün yüksək qiymətləndirir. Brilyantlar davamlı sevgi və öhdəliyi simvollaşdırır, tez-tez nişan üzüklərində və sərvət və statusun ifadəsi kimi istifadə olunur. Ümid almazı, Koh-i-Noor və Cullinan almazı hər birinin öz füsunkar tarixi və əfsanəsi olan ən məşhur brilyantlardandır.

***Yaqut:*** Mənşəyi korund mineralının müxtəlifliyi olan yaqutlar tünd qırmızı rəngini xrom izlərindən alır. Onlar ilk növbədə Myanma, Tayland və Şri Lanka kimi bölgələrdə rast gəlinir.

***Xüsusiyyətləri:*** Zəngin çalarları və müstəsna sərtliyi ilə qiymətləndirilən yaqutlar ən qiymətli qiymətli daşlardan biri hesab olunur. Onların rəngi çəhrayı-qırmızıdan qan qırmızıya qədər dəyişir. Yaqutlar bir çox mədəniyyətlərdə ehtiras, canlılıq və rifahı simvollaşdırır, çox vaxt güc və müdafiə ilə əlaqələndirilir.Sunrise Ruby, Rajaratna Ruby və Rosser Reeves Ruby, hər biri müstəsna ölçü və rəngə malik dünyanın ən məşhur yaqutlarındandır.

***Safir:*** Mənşəyi sapphires, həmçinin müxtəlif korundlar, mavi ən ənənəvi və qiymətli olan müxtəlif rənglərdə olur. Onlara Şri Lanka, Myanma və Madaqaskar kimi ölkələrdə rast gəlinir.

Xüsusiyyətləri: Valehedici mavi çalarları və diqqətəlayiq sərtliyi ilə tanınan sapfirlər davamlılığı və parlaqlığı ilə seçilir. Safirlər tarix boyu tez-tez kral ailəsi və ruhanilər tərəfindən geyilən müdrikliyi, padşahlığı və ilahi lütfü simvollaşdırır. Hindistan Ulduzu, Loqan Sapphire və Asiyanın Mavi Belle ölçüləri və müstəsna keyfiyyəti ilə heyran qalan ən məşhur sapfirlərdəndir.

***Zümrüdlər:*** Mənşəyi beril mineralının yaşıl çeşidi olan zümrüdlər öz rənglərini çox miqdarda xrom, vanadium və dəmirə borcludurlar. Onlar əsasən Kolumbiya, Zambiya və Braziliya kimi ölkələrdə hasil edilir.

***Xüsusiyyətləri:*** Yamyaşıl çalarları və "jardin" kimi tanınan unikal əlavələri ilə mükafatlandırılan zümrüdlər almazdan daha yumşaqdır, lakin nadirliyi və gözəlliyi ilə qiymətləndirilir. Zümrüdlər müxtəlif mədəniyyətlərdə tez-tez sevgi və məhsuldarlıqla əlaqəli olan yenidən doğuş, böyümə və rifahı simvollaşdırır. Təbaşir Zümrüd, Qaçala Zümrüd və Devonşir Dükü Zümrüd ölçüləri, rəngləri və tarixi mənşəyinə görə qiymətləndirilir.

***Opallar:*** Mənşəyi opallar, kiçik silisium kürələri vasitəsilə işığın difraksiyasından qaynaqlanan bir fenomen olan rəng oyunlarına görə qiymətli daşlar arasında unikaldır. Onlara əsasən Avstraliya, Efiopiya və Meksika kimi bölgələrdə rast gəlinir.

***Xüsusiyyətləri:*** Opallar südlü ağdan odlu qırmızıya qədər müxtəlif rəng və naxışlarda gəlir, bu da onları parlaqlığı və fərdiliyi ilə yüksək qiymətləndirir. Opallar yaradıcılıq, ilham və emosional şəfa

simvollaşdırır, tez-tez çevrilmə və xoşbəxtlik daşları kimi qəbul edilir. Andamooka Opal, Aurora Australis Opal və Avstraliya Opal Opal müstəsna rəng və gözəllik oyunu ilə məşhurdur.

Almazların sonsuz zərifliyindən yaqutların, sapfirlərin, zümrüdlərin və opalların canlı cazibəsinə qədər qiymətli daşlar tarix boyu bəşəriyyəti heyran etmişdir. İstər gözəlliyinə, istər simvolizminə, istərsə də nadirliyinə görə qiymətləndirilsə də, bu qiymətli daşlar valeh etməkdə və ilham verməkdə davam edir, həm şəxsi bəzək əşyalarını, həm də mədəni irsi davamlı əzəməti ilə zənginləşdirir.

Qiymətli daşlar heyranedici gözəlliyi və ovsunlayıcı xüsusiyyətləri ilə minilliklər boyu bəşəriyyəti valeh etmişdir. Brilyantların parıltısından tutmuş yaqutların, sapfirlərin, zümrüdlərin zəngin çalarlarına və opalların iridessensiyasına qədər hər bir qiymətli daş onun cazibədarlığına töhfə verən unikal xüsusiyyətlərə malikdir. Bu məqalədə biz bu beş qiymətli daşların heyranedici xüsusiyyətlərini araşdıraraq, onların tərkibini, sərtliyini, rəngini və digər fərqli xüsusiyyətlərini araşdırırıq.

***Almaz***

***Tərkibi:*** Almazlar kristal qəfəs quruluşunda düzülmüş karbon atomlarından ibarətdir və bu onları ən sərt təbii maddə halına gətirir.

***Sərtlik***: Almazlar cızılma və aşınmaya qarşı müstəsna müqavimət göstərən Mohs mineral sərtlik şkalasında 10-cu yerdədir.

***Parlaqlıq***: Almazların ən diqqətəlayiq xüsusiyyətlərindən biri, bu qiymətli daşlarda heyran olan alov və parıltı yaradan yüksək sındırma indeksi və dispersiya ilə xarakterizə olunan müstəsna parlaqlığıdır.

***Aydınlıq***: Almazlar sıx təzyiq və istilik altında əmələ gəldiyinə görə tez-tez diqqətəlayiq aydınlıq nümayiş etdirirlər, daha az daxilolmalar və ya qüsurlar onların dəyərini artırır.

Rəqəmsal texnologiyalardan fəal şəkildə istifadə edən bank sektorunda artan rəqabət xüsusilə bank əməliyyatlarının aparılması sürəti və rahatlığı baxımından müştərilərin xüsusi tələblərinə səbəb olub. Bu gün müştərilərin virtual banka ehtiyacları artıb, çünki onlar yalnız onlar üçün seçilmiş eksklüziv bank xidmətlərini almaq istəyirlər. Və belə bir ehtiyac olduqca başa düşüləndir, çünki müasir bank müştərilərinin həyat tərzi İnternet mühiti və virtual məkanlasıx bağlıdır. Yeni rəqəmsal bankçılıq platformasına keçiddə uğur qazanmaq istəyən ənənəvi banklar üçün artıq sadəcə rəsmi veb-sayt və mobil proqrama malik olmaq kifayət deyil. İstehlakçı loyallığına cavabdeh olan və satış mexanizmini dəstəkləyən oxşar sistemlər bu gün istisnasız olaraq bütün orta və iri maliyyə strukturlarında mövcuddur; onlar artıq müştəri bazasında kifayət qədər əhəmiyyətli artım təmin etmirlər. Odur ki, həm bank biznesində, həm də onlayn məkanda artan rəqabət şəraitində banklar informasiya infrastrukturunu yaradan yeni,unikal konsepsiya hazırlamalı və onu bazara bacarıqla təqdim etməlidirlər.

Hazırda əksər kredit təşkilatları xüsusi nəzarəti nəzərdə tutan klassik formatlı çoxsəviyyəli prosesləri idarə edirlər. Lakin müasir şəraitdə bu proseslər rəqəmsal texnologiyalarda xüsusi ehtiyacları olan yeni müştəriləri cəlb etməyə deyil, konservativ müştərilərin bir hissəsini saxlamağa imkan verir. Eyni zamanda, hətta ənənəvi banklar yalnız ayrıca rəqəmsal xidmətlər təklif edirlər (məsələn, şəxsi hesab vasitəsilə uzaqdan girişdən istifadə edən mobil bank və ya İnternet xidməti), bu artıq kifayət deyil, çünki rəqəmsal bankçılığın hərtərəfli modelini tam qurmaq mümkün deyil. [8]

Əksər ekspertlər hesab edir ki, inteqrasiya olunmuş yanaşma olmadan rəqəmsal infrastruktur qurmaq səmərəsizdir. Yeni oyunçular üçün mövcud rəqəmsal məkana inteqrasiya etmək, hətta daha çox, yeni tip müştərilər üçün tələblərə və tələblərə uyğun olaraq kifayət qədərçevik və effektiv şəkildə inkişaf etdirilən öz unikal rəqəmsal infrastrukturunu formalaşdırmaq olduqca çətindir. Rəqəmsal bankçılığın qabaqcılları digər banklardan daha tez rəqəmsal strategiyaya sərmayə qoymağa başlayan qlobal bank imperiyaları, eləcə də dərhal Rəqəmsal banklar kimi biznes strategiyasını quran yeni nəsil banklar idi. Onlar haqlı olaraq ən böyük konsaltinq şirkətlərinin reytinqlərində aparıcı rəqəmsal bankların ən yüksək yerlərini tutdular: Holvi (Finlandiya), Hype (İtaliya), ImaginBank (İspaniya), Knab (Hollandiya), Lunar (Danimarka), mBank (Çexiya, Polşa, Slovakiya), MonoBank (Ukrayna). Rəqəmsal bankçılıq bazarının qabaqcılları artıq bank və müştəri arasında qarşılıqlı əlaqənin bank işçilərinin iştirakı olmadan həyata keçirilməsinə nail olub. Digər maliyyə institutları bu sahədə öz rəqiblərini tutmaq üçün ciddi səylər göstərməlidirlər. Bundan əlavə, ənənəvi bank xidmətləri bazarında qeyri-bank şirkətləri (Google, Apple) peyda olur. Optimal, fikrimizcə, bankın strategiyası bütün əməliyyatların tez və rahat şəkildə həyata keçirildiyi və sorğuların real vaxt rejimində gecə- gündüz işləndiyi müştəri xidmətinə yönəldilməlidir. [5]

Eyni zamanda, dünyada sürətlə dəyişən rəqəmsal texnologiyalar üçün vəziyyət həm İT sistemlərində (xidmətlərə, qarşılıqlı əlaqə kanallarına, bank alətlərinə və məhsullarına operativ dəyişikliklər, düzəlişlər və dəyişikliklər etməyə imkan verir) çevikliyi təmin etmək lazımdır. Kompleks rəqəmsal bankçılıq sisteminin qurulması üçün standart və fasiləsiz müştəri xidməti mexanizmi yaradılmalıdır. Eyni zamanda, müştərilərlə qarşılıqlı əlaqənin bütün kanalları bir- biri ilə inteqrasiya olunmalı, həmçinin API (ümumi informasiya sistemində müxtəlif proqramların qarşılıqlı əlaqəsi üçün cavabdeh olan proqram qabığı) və mərkəzi bank sistemi ilə qarşılıqlı əlaqədə olmalıdır. Rəqəmsal platforma çərçivəsində ardıcıl tədbirlərə xüsusi diqqət yetirilməli, müştərilərin banklar tərəfindən təqdim olunan virtual xidmətlərin idarə edilməsi imkanı təmin edilməlidir. Müasir bank

müştərisi üçün digər virtual sistemlər: sosial şəbəkələr, axtarış sistemləri və s. ilə bank xidmətlərinin həyata keçirilməsi üçün kanalları fərdi şəkildə konfiqurasiya etmək vacib olacaqdır. Bank informasiya sistemi çevik, dəyişdirilməsi və konfiqurasiyası asan olmalı, müxtəlif istehsalçılar tərəfindən hazırlanmış proqram komponentlərini tez bir zamanda çıxara və ya əlavə edə, onları modernləşdirə və dəyişdirə bilməlidir. [4]

Hazırda Rəqəmsal Bankçılıq rəqabət üstünlüyünə çevrilir və maliyyə institutları müştəriləri cəlb etməyə yönəlmiş, lakin vahid bank tətbiqi çərçivəsində yüksək ixtisaslaşmış rəqəmsal məhsulların buraxılması üzərində işləyirlər. Beləliklə, əmək artımı və məcburi miqrasiya fonunda xüsusilə ehtiyac duyulan xidmətlərdən biri pul köçürmə sistemidir. Ənənəvi sənaye liderləri Western Union və Moneygram tarixçəsi olan şirkətlərdir. Amma indi bazarın böyük bir hissəsini onlayn köçürmə şirkətləri Xendpay, Transfer Wise və Xoom tutduqları xidmətlərin rahatlığı və sərfəli tarifləri sayəsində. Maliyyə institutu öz xüsusi proqramında pul köçürmələri, kommunal ödənişlər, valyuta mübadiləsi kimi mobil qurğular üçün əlavə funksiyaları təmin etməklə yanaşı, həm də müxtəlif reklam kampaniyaları və bazar araşdırmaları aparmaq imkanı verə bilər.[2]

Banklar mövcud və potensial müştəriləri haqqında düzgün və aktual məlumatlara ehtiyac duyurlar, ona görə də sosial şəbəkələrdəki profillərdən maksimum faydalı məlumatlardan istifadə etməli və onlara hansı bank məhsullarının təklif oluna biləcəyini təhlil etməlidirlər. Bu gün müştərilərin (yer) müştərisinin yerinin və hərəkətlərinin müəyyən edilməsi GPS sistemindən istifadə etməklə izlənilə bilər. Bu cür məlumatlara marketinq hesabatları hazırlaya, xidmət müştərilərini və reklamçıları konkret hədəf auditoriyasına yönəldə bilən maliyyə şirkətləri tələb edir ki, bu da potensial müştərilərlə daha məqsədyönlü işləməyə imkan verir, onların əsas ehtiyaclarını və yerini artıq bilir. Müştərilərin müxtəlif saytlara daxil olma tarixçəsi, axtarış sorğuları, hərəkətləri, o cümlədən ailə vəziyyəti, ailə tərkibi, uşaqların varlığıvə yaşı, sosial status kimi demoqrafik məlumatlar maraq doğura bilər.

**NƏTİCƏ**

Maliyyə bankçılığı sisteminin hazırkı vəziyyəti ilə bağlı aparılan araşdırmalar həm dünyada, həm də Azərbaycanda rəqəmsal bankçılığın inkişaf mərhələsində olduğu qənaətinə gəlməyə imkan verir. Strateji təhlilin nəticələri göstərdi ki, maliyyə institutları sürətli, lakin diqqətlə hərəkət etməlidirlər - innovativ inkişafı təmin etmək üçün tam dəst alətlər və maliyyə mexanizmlərindən istifadə edərək, rəqəmsal məkanda ən yaxşı təcrübəni aktiv iştirakçılara mənimsəməyə çalışmalıdırlar. Bank sektorunun rəqəmsal transformasiyasının inkişaf ssenariləri və modelləri rəqəmsal uyğunlaşma üçün prosedurları və alqoritmləri əhatə etməlidir.Rəqəmsal Bankçılığa keçidi nəzərdə tutan restrukturizasiya bank xidməti sistemi müştəriləri üçün bank xidmətini daha rahat, rahat, əlçatan və təhlükəsiz etmək məqsədi daşıyır ki, bu da bank sektorunun rəqabət qabiliyyətini artıracaq, eyni zamanda yeni müştəriləri cəlb edəcək. Rəqəmsal transformasiya bank sistemi istiqamətində idarəetmə qərarlarının qəbulu modellərini yaradan mühüm komponent informasiya təhlükəsizliyidir. Eyni zamanda, etibarlı və çoxşaxəli informasiya təhlükəsizliyi sistemi qurmadan bank öz maliyyə resurslarını və müştəri vəsaitlərini rəqəmsal məkanda kibercinayətlərdən qoruya bilməyəcək. Bundan əlavə, cinayətkar kiberhücumlarla mübarizə dövlət qurumları, maliyyə institutları və onların müştəriləri arasında səmərəli əməkdaşlıq çərçivəsində aparılmalıdır. Məhz bütün sadalanan iştirakçıların informasiyaya bərabər çıxış prinsipləri əsasında qurulmuş birgə səylərinin əlaqələndirilməsi yerli maliyyə sektorunun, o cümlədən regional seqmentlərin qorunmasını təmin edəcək və inkişafına kömək edəcək, bu, etibarlı və sürətli əməliyyatlar aparmaq imkanlarını birləşdirəcəkdir.

Beləliklə, rəqəmsal texnologiyalar əksər bank qurumlarının müştərilərinin həyat tərzini, ehtiyaclarını və maliyyə mentalitetini dəyişib. Buna əsaslanaraq, banklar ənənəvi maliyyə institutlarından maliyyə xidmətləri göstərmək üçün yeni rəqəmsal biznes sistemlərinə çevrilirlər.

**ƏDƏBİYYAT SİYAHISI**

1. Alsolami F., “BioPay: Your Fingerprint is Your Credit Card”, (IJACSA) International Journal of Advanced Computer Science and Applications, Vol. 10, No. 1, 2019, (DOI): 10.14569/IJACSA.2019.0100167.

2. Arnaboldi F. and Claeys P. (2008), Financial Innovation in Internet Banking: AComparative Analysis, p. 2, https://dx.doi.org/10.2139/ssrn.1094093.

3. Bank for International Settlements, Committee on Payment and Settlement Systems (March

2003), A glossary of terms used in payments and settlement systems, https://www.bis.org/cpmi/glossary_030301.pdf.

4. Baraniuk C. (2019), Bitcoin' s energy consumption equals that of Switzerland, https://www.bbc.com/news/technology-48853230.

5. İmamverdiyev Y., Sadiyeva F., Kriptovalyuta verilənlərinin intelektual analizi məsələləri, "İnformasiya təhlükəsizliyinin aktual multidissiplinar elmipraktiki problemləri" IV respublika konfransı, 14 dekabr 2018-ci il, DOI: 10.25045/NCInfoSec.2018.08.

6. Mandepanda Appaya S. and Gradstein Helen L. (2020) "How Regulators Respond to FinTech: Evaluating the Different Approaches—Sandboxes and Beyond." Washington, D.C.: World Bank, https://documents.worldbank.org/en/publication/documents-reports/documentdetail/579101587660589857/how-regulators-respond-to fintechevaluating-the-different-approaches-sandboxes-and-beyond.

7. Məmmədov Z.F. (2016), Bank işi. Dərslik. 2 Cilddə. I cild. Bakı, "Təknur", AzərbaycanDövlət İqtisad Universiteti, 456 səh.,https://unec.edu.az/application/uploads/2015/05/1-ci-Cild-2.pdf.

8. Musayev A., "Rəqəmsal iqtisadiyyatda vergitutma məsələləri", Audit 3, Cild 29, 2020,səh. 3-18, http://audit-journal.az/files/articles/61.pdf.

# BANK RISKLƏRININ TƏSNIFATI VƏ IDARƏ EDILMƏSI

**RÖYA HÜSEYNLI**
Bakı Mühəndislik Universiteti
İqtisadiyyat və İdarəetmə /Maliyyə və Mühasibat
*rhuseynli5@std.beu.edu.az*
XIRDALAN, AZƏRBAYCAN

**XÜLASƏ**

Banklar iqtisadiyyatın canlanmasında,uzun müddətli və davamlı makroiqtisadi sabitliyin saxlanılmasında uğurlu qurumlardır.Ona görə də bank sektoru ölkələrin iqtisadiyyatında əhəmiyyətli rol oynayır. Maliyyə tarixinə və bank sektorunun keçmişinə baxdıqda yaşanan təcrübələr ,baş verən hadisələr və bütün bunları araşdıran elmi nəzəriyyələrin mərkəzində risk mövzusu durur. Bu səbəbdən banklar həm öz performanslarını dəyərləndirməli,həm də bu dəyərləndirmə nəticəsində performanslarını artırmaq üçün tədbirlər görməlidir. İqtisadi strukturların əvəzedilməz elementlərindən biri olan banklar,çox vaxt işlərinə görə müxtəlif risklərlə üzləşməli olurlar .Tədqiqatın məqsədi bank sektorundakı riskləri və risklərlərin necə idarə edilməsini ,eyni zamanda risk əsaslı fəaliyyətlərini araşdırmaqdır. Effektiv daxili audit və risklərin idarə edilməsi sistemi bank idarəçiliyinin ən mühüm elementidir və eyni zamanda bank fəaliyyətinin tam və təhlükəsiz davam etdirilməsi üçün zəruri strukturdur.Daxili audit və risk idarə etmə sistemi davamlı olaraq nəzarət altında olmalıdır. Hər bir bank üçün eyni risk idarəetmə üsullarının tətbiqi eyni səviyyədə təsir göstərməyə bilər.Bu ölkənin şərtləri, sektordakı şərtlər və sektordakı rəqabətin vəziyyəti ilə bağlıdır. bankın öz subyektiv strukturunu nəzərə almaqla risklərin idarə edilməsi üsulları daha uğurlu nəticələrin əldə olunmasına səbəb olacaqdır. Bu araşdırmada ümumi olaraq bütün bankların riskləri idarə etmək üçün hansı üsullardan istifadə edə biləcəyindən ,risklərin növündən asılı olaraq onlara nece yanaşmaq lazım olduğundan bəhs edilmişdir.Yəni risklər necə təsbit edilir ,hansı şəkildə dəyərləndirilir,riskin vurduğu zərəri nece minimuma endirə bilərik bu barədə danışacağıq.

**AÇAR SÖZLƏR: Bank riskləri, Risklərin növləri, Risklərin idarəedilməsi**

## GIRIŞ

Bank sektorunun risk ilə tanışması hələ bankların varoluşundan başlayıb ,hal-hazırda da artmağa davam edir .Bu artan risklər eyni zamanda idarə edilmə və nəzarət edilmə ehtiyacını yaratmışdır.Hansı ki, bu risklərin idarə edilə bilməməsi bank üçün təhdit hesab edilir.Bank sektorunda risklər idarə edilə bilmədiyi zaman ölkə iqtisadiyyatında maliyyə böhranlarına səbəb ola bilər.Qloballaşan bazarlarda bir ölkədə baş verən böhran və risklər digər ölkələrdə də öz əksini tapır.Bütün bu risklərin düzgün idarə edilməsi üçün Bazel komitəsi yaradılmışdır.Bazel qaydalarının əsas məqsədi riskləri düzgün idarə edərək effektiv nəzarəti təmin etmək, bazarda intizamı qoruyub saxlamaqdır.Bazel qaydaları bank sektorunda risklərin idarə edilməsində əhəmiyyətli yeniliklər gətirmişdir.Bunların başında kapital adekvatlıq əmsallarının artırılması və qurumlara verilən kreditlərdə reytinqlərin olması gəlir.Bazel qaydaları yüzdən çox qanun kimi qəbul edilir və həyata keçirilir.Bazel qaydaları bankların risk idarəetməsini gücləndirmişdir.Bazel qaydalarına görə risklər 3 əsas başlıq altında birləşir.Hnası ki biz bu haqda ətraflı şəkildə danışacağıq.

## TƏDQIQAT METODU

Bank risklərinin təsnifatı və idarə edilməsi

Müasir dövrdə bank sektoru müxtəlif risk növləri ilə qarşılaşmaqdadır.Risklər özünü bəlli etməsinə görə sistemli və sistemli olmayan risklər olaraq 2 yerə ayrılır. İdarə edilmə vəziyyətinə görə isə nəzarət edilə bilən və nəzarət edilə bilməyən risklər olaraq təsnifləndirilir.Ümumi olaraq Bazel qaydaları bankların idarə etməli olduqları riskləri 3 əsas ana başlıq altında birləşir .Bunlar aşağıdakılardır:

1. Bazar riski
2. Əməliyyat riski
3. Kredit riski

**Bazar riski** – aktiv və öhdəliklərin mübadiləsi zamanı valyuta məzənnəsində, aktivlərin qiymətində, faiz dərəcələrində baş verən dəyişmələr nəticəsində ortaya çıxan riski ifadə edir. Banklar üçün bazar riski qısa müddətə mənfəət əldə etmək üçün öz aktiv və öhdəliklərini aktiv şəkildə alqı-satqıda istifadə etməsi nəticəsində ortaya çıxır. Bankın uzun müddətli investisiya və maliyyələşdirmə çox qısa müddətlik dönəmdə alım -satım etməsi bank üçün faiz, gəlir və məzənnə riskinin artmasına səbəb olur. Bankların alım satım (tarding) fəaliyyətləri çərçivəsində həm istiqrazların, xarici valyutaların, əmtəələrin və səhmlərin alınması həm də bu aktivlərin satışı ilə məşğul olmaqla qısa müddətli mənfəət əldə etməyə çalışırlar. Bütün bu fəaliyyətlərlə məşğul olmaq bankları bazar riski ilə qarşı qarşıya qoyur.

**Əməliyyat riski –** uğursuz daxili proseslər ,insanlar və ya sistemlər, xarici hadisələr nəticəsində ortaya çıxan bir risk növüdür.Daha ətraflı şəkildə desək əməliyyat riski, bankın daxilindəki uyğunsuzluqların və yaxud xətaların görülməsi , işçi heyətinin şərtlərə əməl etməməsi ,nəzarətin axsaması , saxtakarlıq halları ,məlumat sistemində baş verən xətalar ,bankın idarə edilməsində xətalar,təbii fəlakətlər ,terror fəaliyyətləri kimi səbəblərdən ortaya çıxır.

Əməliyyat riski ilə digər risklər arasında fərqin müəyyən edilməsi riskin idarə edilməsi baxımından çox önəmlidir.Məsələn kredit zamanında ödənilməməsi kredit riski ilə bağlıdır.Tutaq ki, kreditin verilməsi təsdiqləyən şəxs əlində olan məlumatlara görə krediti verməməlidir.Amma prsedurlara zidd olaraq yenədə krediti verirsə bu zaman burdan yaranan risk əməliyyat riski hesab edilir.Ona görə də risklərin idarə edilməsi üçün mütləq şəkildə onları bir- birimdən ayırd etməyi bacarmaq lazımdır.

**Kredit riski**- borcalan şəxsin borcunu ödəyə bilməməsi halında ortaya çıxır. Kredit riskinə kapital riski, müştəri riski və ya ödəmə riski də deyirlər. Banklar kredit riski ilə qarşı qarşıya qalmamaq üçün kredit verdiyi müştəridən və ya üçüncü şəxslərdən təminat alırlar. Əgər mütəri kreditini ödəyə bilmirsə banklar təminata baş vururlar.

Kreditlərin məhdud sayda insanlar, sektorlar və ölkələr üzrə cəmlənməsi və müəyyən iqtisadi qrupa əhəmiyyətli miqdarda verilməsi kredit riskini artıran başlıca amillərdən biridir. Kredit riskini azaldan faktorlar aşağıdakılardır:

- Kreidtin müəyyən sektorlar və şəxslər üzərində cəmləşməsinin qarşısıının alınması
- Bir şəxsə və ya qrupa veriləcək kreditlərə müəyyən limitlərin qoyulması
- Kredit götürmək istəyən müştərinin ayrıntılı bir şəkildə araşdırılması

- Bankın idarəetmə heyətinin nəzarəti altında kredit verilmədən əvvəl ayrıntılı bir şəkildə qərar haqqında dəyərləndirmə aparılmalıdır.

Yuxarıda sadaladığımız risk növlərindən başqa bankların ən çox qarşılaşdığı risklər aşağıdakılardır:

- ✓ Faiz riski
- ✓ Məzənnə riski
- ✓ Likvidlik riski

**Faiz riski** –faiz dərəcələrindəki dəyişimə bağlı olaraq ortaya çıxır. Bu da bir bankın maliyyə strukturunda mənfi təsir yarada bilər. Bir sözlə faiz riski faiz dərəcələrində baş verən dəyişmələr səbəbilə bankın mövqeyindən asılı olaraq həmin bankın uğrayacağı zərəri ifadə edir.

Ümumiyyətlə faiz riski özünü müxtəlif formalarda biruzə verir. Bunlar bankın öhdəlikləri ilə müaqayisədə daha uzun müddətli aktivlərə sahib olmasından qaynaqlanan yenidən maliyyələşmə riski və bankın ödəlikləri ilə müqayisədə daha qısa müddətli aktivlər sahib olmasından qaynaqlanan yenidən investisiya riskləridir. Hansı ki, bu risklər yenidən investisiya edilmiş vəsaitlərin əvvəlki vəsaitlərin dəyərindən aşağı olması şəklində ortaya çıxır.

Faiz dərəcəsi riskini azaltmaq üçün əsas nüanslar aşağıda qeyd olunmuşdur.

- ➢ Uzun müddətli və daimi aktivlərin uzun müddətli resurslarka ,qısa müddətli və müvəqqəti aktivlərin qısa müddətli vəsaitlərlə qarşılanması
- ➢ Xalis faiz marjasını kifayət qədər yüksək tutmağa istiqamətlənmiş bir siyasət izlənilə bilər.

**Likvidlik riski** – depozit sahiblərinin ani bir şəkildə bankdan pullarını çəkmək istədiyi təqdirdə ortaya çıxır. Hansı ki , bank müştərilərinin bu tələbini yerinə yetirə bilmirsə bu risklə qarşı-qarşıya qalır.Bankın bu tələbi yerinə yetirə bilməsi üçün gərək aktivlərindəki artımı ödəmək üçün resurs balansını kifayət qədər saxlaya bilsin və öhdəliklərinin artımını idarə edə bilsin.Banklar bu tarazlığı qoruya bilmədikdə iflas vəziyyətinə kimi gəlib çıxa bilirlər.

Likvidlik riskini azaldan başlıca faktorlar aşağıdakılardır:

- Banka daxil olan və çıxan vəsaitlərin yaxından təqib olunması və nağd pul axınının fasiləsizliyini təmin edəcək tədbirlər görmək
- Likvidliyi yüksək olan aktivlərə sahib olmaq
- Bazarda istənilən vaxtda yeni vəsait tapa bilmək imkanın təmin edilməsi
- Bankın aktiv və öhdəliklərinin ödəmə strukturunun bir -birinə yaxın olmasının təmin edilməsi

**Məzənnə riski** -milli pulun xarici pul qarşısında dəyər qazanması və ya itirməsi nəticəsində ortaya çıxır.Aşağı faizli xarici valyutada borc götürərək yüksək faizli yerli maliyyə alətlərinə investisiya etmək cəhdləri məzənnə riski üçün vacib və müəyyən edici amildir.Banklar portfellerində saxladıqları xarici valyutaları kifayət qədər investisiya alətlərinə paylamırlar.Bu da məzənnə riskinin ortaya çıxması üçün əhəmiyyətli amildir.

**Bank risklərinin idarə edilməsi**

Banklarda risklərin idarə edilməsi ardıcıllığını aşağıdakı kimi sıralamaq olar:

- ✓ Zərərlərin baş verməsi ehtimalını əvvəlcədən görmək və bunun qarşısını almaq üçün tədbir almaq
- ✓ Baş verə biləcək zərərləri ölçmək
- ✓ Rəhbərliyi zamanında məlumatlandırmaq
- ✓ Baş verən riskin verdiyi zərəri ən aşağı səviyyədə tutmaq üçün tədbirlər almaq
- ✓ Tez qərar qəbul etməyi tələb edən sistemlər qurmaq

Risklərin idarə edilməsində bankın törəmə müəssisələri də nəzərə alınmalıdır.Bankın törəmə müəssislərinin konsolidasiya əsasında maliyyə performans göstəriciləri və qarşılaşdığı risklər daim nəzarət altında saxlanılmalıdır.Eyni zamanda konsolidasiya edilməmiş törəmə müəssisələrinin statusu da nəzərə alınmalıdır.Bank yerli və xarici törəmə şirkətlər arasında həyata keçirilən böyük həcmli əməliyyatlar və vəsait transferlərini təqib etməlidir.Bundan əlavə olaraq bu törəmə müəssislərin risk profili dəyərləndirilməlidir və bu risklərin müəyyən olunan sərhədlər daxilində olub -olmaması aydınlaşdırılmalıdır.

Banklar riskləri idarə etmək üçün qoruyucu və profilaktik risk idarəetmə siyasətlərindən istifadə edirlər.

Qoruyucu siyasətlər bütün tədbirlərin alınmasına rəğmən risklərin aradan qaldırılması mümkün olmadıqda ehtuyat tədbirlərinin görülməsini nəzərdə tutur.

Adından da göründüyü kimi profilaktik və yaxud qabaqlayıcı siyasətlər isə risklər zərər verməmişdən əvvəl bunun qarşısını almağı hədəfləyən siyasətlərdir. Bu siyasətlərə misal olaraq ödəmə müddətlərində uyğunluq və kəsirlərin məhdudlaşdırılması ,kredit və qiymətli kağızlar portfelində şaxələndirmə və limitlərin müəyyənləşdirilməsi göstərilə bilər.

Ümumiyyətlə bu siyasətləri yerinə yetirərkən aşağıdakı prinsipləri nəzərdən keçirmək lazımdır.

Risklərin idarə edilməsi yalnız fərdi əməliyyatlara deyil bütün əməliyyatlara yönəlməlidir.

Dəyişən risklər bir-birini sürətləndirərək böyüdə bilər. Ona görə də ümumi risk məqbul riski (yəni bankın ümumi itki potensialnını) aşmamalıdır.

Ümumiyyətlə riskləri müşahidə edə bilmək və nəzarət edə bilmək üçün riskləri ölçmək lazımdır.Biz bunu risklərin idarəetmə funksiyaları ilə yerinə yetirə bilərik .Risk idarəetmə funksiyaları aşağıdakılardır:

- ✓ Strategiyaların həyata keçirilməsi
- ✓ Qərar qəbul etməyə kömək etmək
- ✓ Rəqabət üstünlüklərini inkişaf etdirmək
- ✓ Qiymətlə bağlı qərarların verilməsində kömək etmək
- ✓ Risklərə düzgün nəzarət edilir şəkildə bildirmək

Banklar bazar riskini ölçmək və qarşılığında investisiya ayırmaq üçün bazar riski ölçüm modellərin istifadə edə bilərlər.

Ümumi meyarlar: Bankların risk ölçüm modelləri müəyyən standartlara uyğun olmalıdır. Bu standartlara görə:

- ➢ Tətbiq olunan risk ölçmə sistemi sağlam əsaslara söykənməlidir və etibarlı olmalıdır.
- ➢ Saglam və etibarlı dataların qeydiyyatsı sistemi mövcud olmalıdır.
- ➢ Davamlı olaraq stress testləri tətbiq edilməlidir.

Keyfiyyət meyarları:

- ➢ İdarə heyəti və üst rəhbərlik risklərə nəzarət prosesində fəal iştirak etməlidirlər.
- ➢ Hər ay digər aylara nisbətən dəyişən göstəriciləri ölçmək üçün testlər aparılmalıdır.
- ➢ Riskin ölçülməsi modeli gündəlik risklərin idarə edilməsi prosesinin bir hissəsi olmalıdır və əldə olunan nəticələr bankın bazar riski profilinin planlaşdırılması və nəzarətində istifadə edilməlidir.
- ➢ Risklərin ölçülməsi modeli və əməliyyat və risk limitləri ilə əlaqəli istifadə edilməlidir və əməliyyat limitləri riskə məruz dəyər ilə əlaqələndirilməlidir.
- ➢ Davamlı olaraq stret testləri edilməli və nəticələri periodik olaraq idarə heyəyinə bildirilməlidir.
- ➢ Yazılı olaraq bir riskin ölçülməsi modeli və onun idarə edilməsi ilə əlaqəli qaydalar tərtib olunmalıdır.
- ➢ İnteqrasiya olunmuş risk nəzarət sistemi ildə ən az bir dəfə nəzərdən keçirilməlidir.

Kəmiyyət meyarları:

- ➢ "Riskə Məruz Dəyər" günlük olaraq ,99% etibarlılıq aralığı istifadə edilərək hesablanır və 10 gün üçün keçərlidir.
- ➢ Riskə məruz dəyər hesablanmasında tarixi müşahidə müddəti 1ildən az olmamalıdır.
- ➢ Riskə məruz dəyərin hesablanması üçün istifadə olunan datalar ən az 3 aydan bir yenilənməlidir.
- ➢ Banklar riskə məruz dəyərin hesablanmasında parametrik ,tarixi simulyasiya və ya Monte Carlo simulyasiyası metodların uyğun gördükləri bir metodu tətbiq edə bilərlər.
- ➢ Bankların risk ölçüm modeli eyni zamanda faiz riskini və spesifik riskidə ölçə bilməlidir.

Riskdən qaçınmaq üçün aşağıda qeyd oluinan bəzi nüanslara diqqət yetirək :

- Effektiv olmayan və yalnış maliyyə qərarlarının qarşısını almaq üçün müqavilələrin ,prosedurların,proseslərin standartlaşdırılması
- Diversifikasiya yolu ilə borcalanlara fayda verəcək portfellərin yaradılması və zərərlərin təsirinin azaldılması
- İşçilərdən məsuliyyət tələb edən və onları həvəsləndirən korporativ rəhbərliklə bağlanmış müqavilələrin həyata keçirilməsi.

**NƏTICƏ**

Bank sektoru həm iqtisadiyyatda həm də maliyyə sistemində çox əhəmiyyətli rol oynayır.Buna görə də həm dünyada həm də ölkəmizdə iqtisadi fəaliyyətlərin davam etdirilməsində mühim rol oynayır.Banklar fəaliyyətlərini davam etdirmək üçün həm öz resurslarını effektli və səmərəli istifadə etməli , həm də performanslarını dəyərləndirməlidirlər.Bundan başqa öz performanslarını artırmaq üçün tədbirlər həyata keçirməlidir.Çünki bank sektoru digər sektorlara da təsir etdiyindən səmərəliliyini və performansını yüksək səviyyədə saxlamalıdır.

Banklar tərəfindən istifadə edilən rislkərin ölçülməsi modelləri hazırlanan risklərin idarə edilməsi hesabatları müəyyən qanuni qaydalara tabedir.Risklərin idarə edilməsinin müvafiq fərziyyələr və paramterlər bankın riskini müəyyən etməkdir.Bankın qarşıılaşa biləcəyi riskləri idarə edərək ,riskə uyğunlaşdırılmış gəliri maksimuma çatdırmaqdır.Buna uyğun olaraq ,risk ölçmə istifadə ediləcək fərziyyələrin və üsulların müəyyən edilməsi tələb olunur.Bankın risk ölçmə sistemin fərziyyələr və parametrlər müəyyən edilməli aidiyyəti şəxslər tərəfindən aydın şəkildə başa düşülməli və fərziyyə və paramterlərin riski müəyyən olunmalıdır.Ölşmə modelinin nəticələrə təsiri mütəmadi olaraq nəzərdən keçirilməli və lazım gəldikdə yenilənməli və bütün dəyişikliklər səbəbləri ilə birlikdə qeyd edilməlidir.Eyni zamanda bütün bunlar rəhbər heyətə bildirilməlidir.Məqalədə aşağıdakı nüanslardan bəhs olunmuşdur : banklar hansı risklərlə üzləşir, bu riskləri idarə etmək üçün hansı metodlardan istifadə edir ,qarşılaşdığı riskləri minimuma endirmək üçün hansı tədbirləri görməlidir. Hər bir bankın işləmə mexanizmi özünə xasdır.Ona görə də hər bir bank özünə uyğun metodlardan istifadə edərək riskləri minimuma endirməyi bacarmalıdır.

**ƏDƏBIYYAT SIYAHISI**

1. Gülden Kadooöl AYDIN, Adalet HAZAR, Şenol BABUŞCU , Dilhan UÇAR(2023). BANKALARIN MULTİ-MOORA YÖNTEMİ İLE RİSK BAZLI PERFORMANS ÖLÇÜMÜ – TÜRKİYE UYGULAMASI .DOĞUŞ ÜNİVERSİTESİ DERGİSİ,s 174-177
https://dergipark.org.tr/en/pub/doujournal/article/1216012

2. LEVENT SEZAL (2006). BANKA İŞLETMELERİNDE ETKİN BİR İÇ DENETİM VE RİSK YÖNETİM SİSTEMİNDE KARŞILAŞILAN SORUNLAR VE ÇÖZÜM ÖNERİLERİ.Doktura tezi s 53-64
https://www.researchgate.net/publication/369762478_BANKALARDA_IC_DENETIM_VE_RISK_YONETIMI

3. Hakan ERTÜRK (2010) BANKACILIK SEKTÖRÜNÜN KARŞILAŞTIĞI RİSKLER VE RİSK YÖNETİMİ.Makale .s 65-69
https://dergipark.org.tr/en/download/article-file/208921

4. Ekrem ERDEM(2013). BAN KALARDA KREDİ YÖNETİMİ s 191-194
https://www.researchgate.net/profile/Ekrem-Erdem/publication/371185923_Bankacilikta_Risk_Yonetimi_ve_Kredi_Riski/links/64789360b3dfd73b77588abc/Bankacilikta-Risk-Yoenetimi-ve-Kredi-Riski.p

5. Hakan YAZARKAN (2008). BASEL KRİTERLERİ VE BASEL II'NİN TÜRK BANKACILIK SİSTEMİNE MUHTEMEL ETKİLERİ.Yüksek lisans tezi .s 22-30
https://www.atauni.edu.tr/yuklemeler/64bb1d25d9b65cfff2f7a150cf8aa339.pdf

# QƏNAƏTCIL İSTEHSAL METODU

**MAHIR QULIYEV**
Bakı Mühəndislik universiteti
İstehsal sferasında mühasibat uçotu və audit
*mquliyev13@std.beu.edu.az*
SUMQAYIT, AZƏRBAYCAN

**XÜLASƏ**

İstehsal prosesi mezolit dövründən bəri daima inkişaf edən bir sahədir. İnsanların təbiətdən olan asılılığı aradan qaldırmaq, məhsul çeşidliyinə sahib olmaq istəyi istehsala olan tələbi artırır. Dördüncü Sənaye İnqilabı ilə birlikdə istehsalın əl gücündən avtomatlaşdırılmış sistemlərə keçid etməsi bu prosesdə olan itkiləri azaltmağa imkan verdi. Lakin hələ Dördüncü Sənaye İnqilabından da əvvəl, hələ 1950-ci ildən bəri TOYOTA tərəfindən ortaya qoyulmuş Qənaətcil İstehsal metodu istehsal prosesi zamanı ortaya çıxa biləcək itkilərin qarşısını almağa yönəlib. Qənaətcil İstehsal Metoduna əsasən son istifadəçi olan müştəriyə əlavə dəyər verə bilməyən bütün hərəkətlər lazımsız itkilərə və artıq xərclərə yol açır. Bütün bu xərclər yapon dilində tullantı mənasını verən "Muda" adlanır və müəssisələrin məqsədi bu hərəkətləri istehsal prosesindən xaric etməkdir. TOYOTA-nın bu yanaşması daha sonralar Lean prinsipləri adlandırıldı və günümüzdə də TOYOTA, INTEL, NIKE kimi bir çox iri şirkətlər tərəfindən istifadə edilir. Müasir dövrdə yaranmış olan Agile layihə idarəetməsi də müştəri məmnunluğunu ön plana çəkməsi və sürətli hərəkət ilə xərcləri azaltmaq düşüncəsi baxımından Qənaətcil İstehsal Metoduna uyğun gəlir. Ölkəmizdə fəaliyyət göstərən isthesalat müəssisələrinin də dövrün tələbinə, yəni Dördüncü Sənaye İnqilabının tələblərinə uyğunlaşmaq, onunla ayaqlaşa bilmək üçün istehsal prosesində elektronlaşmalar, süni intellekt dəstəkli sistemlərə keçidi mütləq hal alır. Belə olan halda yeni keçid ilə birlikdə Qənaətcil İstehsal Metodu ilə xərcləri azaltmaq yönümlü addımlar atan istehsal müəssisələri uzunmüddətli dövr baxımından bazarda mütləq üstünlük əldə edə, həmçinin xərcləri azaltmaq hesabında daha çox gəlir əldə edə bilər.

**AÇAR SÖZLƏR: Qənaətcil İstehsal Metodu, Ümumi Avadanlıq Effektivliyi, Lean Prinsipləri**

**ABSTRACT**

The manufacturing process has been an ever-evolving field since the Mesolithic era. People's desire to eliminate dependence on nature and have a variety of products increases the demand for production. With the Fourth Industrial Revolution, the transition of production from manual labor to automated systems made it possible to reduce the losses in this process. But even before the Fourth Industrial Revolution, the Lean Manufacturing method introduced by TOYOTA since 1950 is aimed at preventing losses that may occur during the production process. According to the Lean Manufacturing Method, all actions that cannot add value to the customer, who is the end user, lead to unnecessary losses and excess costs. All these costs are called Muda, which means waste in Japanese, and the goal of businesses is to eliminate these actions from the production process. This approach of TOYOTA was later called Lean principles and today it is used by many large companies such as TOYOTA, INTEL, NIKE. Agile project management, which has emerged in modern times, is also compatible with Lean Manufacturing in that it prioritizes customer satisfaction and reduces costs by moving quickly. In order to adapt to the demand of the time, that is, the requirements of the Fourth Industrial Revolution, the transition to electronicization and artificial intelligence-supported systems in the production process is inevitable. In such a case, manufacturing enterprises that take steps to reduce costs with the Lean Manufacturing Method along with the new transition can definitely gain an advantage in the market in the long run and also get more income due to cost reduction.

**KEYWORDS: Lean Manufacturing Method, Total Equipment Efficiency, Lean Principles**

## GIRIŞ

Qədim Azərbaycan tarixində Mezolit dövrü təxminən e.ə. XIII-IX minillikləri əhatə edir. Bəşər tarixində, bu dövr bütün sonrakı inkişafı müəyyən edən mühüm bir mərhələ, daha dəqiq desək, keçid dövrü ilə səciyyələnir. Belə ki, Mezolit dövründə insanlıq mənimsəmə təsərrüfat formasından

(ovçuluq-balıqçılıq, yığıcılıq) istehsaledici təsərrüfata keçid etmişdir. İstehsalatın ilkin forması olan əkinçilik və maldarlığın meydana gəlməsi ilə insanlarda dünyanı öz istəklərinə uyğun dəyimək istəyi də meydana gəlir. Təbiətdəki hazır məhsullardan asılılığın azalması, çeşidliliyin artması, davamlılığın təmin edilməsi inkişaf ilə paralel olaraq əldə edilmiş nəaliyyətlər sırasındadır. Günümüzdə istehsal prosesi avtomatlaşdırılma, minimum israf, ağıllı istehsal kimi bir sıra yeni terminləri özünə əlavə edir. Belə ki, indi aktual olan Dördüncü Sənaye İnqilabı da isthesalın avtomatlaşdırılmasını, isthesala eltronik sistemlərin inteqrasiyasını tələb edir. Xərclərin azaldılması və müştəri məmnuniyyətinin artırılmasını hədəfləyən metodlardan biri olan Qənaətcil İstehsal Metodu müştəriyə əlavə dəyər qatmayan bütün prosesləri ləğv etməyi hədəf olaraq qoyur. Təəssüf ki hal hazırda fəaliyyət göstərən müəssisələrin bir çoxu bu metodun istifadəsindən boyun qaçırır. Nəzərə alsaq ki, rəqabətli bazarlarda təklifi yaradan əsas amil tələb olur, o zaman tələbi müəssisənin xeyrinə dəyişmək vacib hal alır. Oxuduğunuz məqalədə Qənaətcil İstehsal Metodunun məqsədi, aktuallığı, hesablama üsulu kimi məsələlər qey edilmişdir.

Ümumilikdə məqalə 3 əsas hissədən ibarətdir:

- Qənaətcil İstehsal Metodu haqqında məlumat;
- Qənaətcil İstehsal Metodu və Ənənəvi metodun müqayisəli təhlili və
- Effektivliyin ölçülməsi yolları.

**TƏDQIQAT METODU**

Ümumilikdə **İstehsal** deyildikdə müəyyən resursların istifadəsi ilə son məhsul və ya yarımfabrikatın hazır edilməsi prosesi başa düşülür. İstehsal zamanı birinci dərəcəli resurslar insan əməyi və ya robotlaşdırılmış sistem və mexanizmlər, ikinci dərəcəli resurslar isə istehsalda istifadə edilmiş xammal və yarımfabrikatlar sayılır. Belə ki, hər bir müəssisənin əsas hədəfi ən optimal istehsal nöqtəsini tapmaqdır. Optimal istehsal nöqtəsi isə ən az resursla ən keyfiyyətli və lazım olan miqdarda məhsulun istehsalıdır.

Qənaətcil İstehsal metodu optimal isthsalın tələblərinə cavab verən və həmçinin Dördüncü sənaye inqilabında uyğunlaşa bilən, bir çox inkişaf etmiş şirkətlərin əsas metodaologiyası kimi çıxış edən bir metoddur. Bu metodun terminalogiyasına baxsaq, Qənaətcil İstehsal Metodu (ing. Lean Production Method) – ən az resursla, ən qısa zamanda, müştərinin tələbinə tamamilə uyğun olan, ona cavab verə bilən, itkisiz və ya ən az itki ilə, eləcə də, bütün istehsal amillərini ən səmərəli şəkildə istifadə edib istehsalın effektivliyinin maksimum artırılmasına yönəlik idarəetmə metod və alətlərindən istifadəni özündə ehtiva edən sistem və metodlar toplusudur. Termindən də aydın olduğu kimi, Qənaətcil İstehsal Metodunda əsas hədəf itkiləri minimuma endirərək lazımi qədər məhsul istehsal edərək prosesi ən səmərəli hala sala bilməkdir. Qənaətcil İstehsal Metodunun tarixi 1950 –ci ilə qədər gedir. Belə ki, Lean Production ilk olaraq 1950-ci ildə Yaponiyda Toyota tərəfindən hazırlanmış istehsal sistemi olan Toyota Production System (TPS) ilə ortaya çıxmışdır. Toyota, müştərilərin tələblərinə uyğun olaraq istehsal prosesində çeviklik və sürətli dəyişikliklər etmək bacarığı ilə ən aşağı qiymətə ən yüksək keyfiyyəti təmin etməyi hədəfləmişdir. Bu məqsədlərə nail olmaq üçün Toyota İstehsal Sisteminin yaradılması zamanı bir sıra prinsiplər hazırlanmışdır. Bu prinsiplər sonralar Lean prinsipləri olaraq da adlandırılmışdır. Lean prinsipləri 5 əsas addımdan ibarətdir. Bunlar:

- Dəyərin müəyyən edilməsi;
- Dəyərə aparan yol xəritəsinin hazırlanması;
- Axının təmin edilməsi;
- Müştərinin çəkilməsi prosesi;
- Davamlı inkişaf (Kaizen);

Lean prinsipləri bir-birini tamamlayan addımlar prosesi olaraq qurulmuşdur. Bu o deməkdir ki, hər növbəti addıma keçid yalnız öncəki addımı tamamlaq ilə mümkündür. Hər bir məhələnin qısa izahı aşağıdakı kimidir.

**Addım 1:** Dəyərlərin müəyyən edilməsi

Lean prinsiplərinə görə dəyər müştərinin məhsula ehtiyacının anlaşılması deməkdir. Belə ki, məhsulun bazara uyğun zamanda çıxarılması, məhsulun qiymət strategiyası, bazardakı rəqiblərdən fərqi, problemi həll etmə bacarığı və s. kimi amillər onun dəyərini müəyyən edir. Lean prinsiplərinə görə dəyərin müəyyən edilməsi ən əsas addımdır. Həmçinin təyin edilmiş dəyərlər bütün işçilə ilə paylaşılmalıdır. Beləliklə məhsulu istehsal edənlər istehsala daha məsuliyyətli yanaşa bilərlər.

**Şəkil 1**. Lean prinsiplərinə görə itkilərin növləri




**Addım 2:** Dəyərə aparan yol xəritəsinin hazırlanması

Son müştəri üçün əhəmiyyətli rol oynayan dəyərlər müəyyən edildikdən sonra növbəti addım həmin dəyərlərə aparan yol xəritəsinin hazırlanmasıdır. Bu xəritədə dəyərlərə nail olmaq üçün lazım olacaq bütün proseslər əks etdirilməlidir. Diqqət olunmalı əsas məsələ bu xəritədə son müştəriyə dəyər verməyəcək bütün proseslərin xəritədən xaric edilməsidir.

**Addım 3:** Axının təmin edilməsi

Yol xəritəsindəki dəyər verməyən proseslərin xaric olunması ilə növbəti addıma keçid edilir. Axının təyin edilməsi mərhələsində əsas məqsəd xəritədəki addımların fasiləsiz fəaliyyətini təmin edə bilməkdir. Axının təmini ilə müəssisə proseslərdən gecikmələri, lazımsız uzatmaları çıxarmış olur.

**Addım 4:** Müştərinin çəkiliməsi prosesi

Müştərinin "çəkilməsi" deyildikdə, onun məhsula olan marağının artırılması ilə yanaşı xərclərin azaldılması nəzərdə tutulur. Müştərilərin məhsulu gözləmə zamanını bir neçə aydan bir neçə həftəyə çəkmək, həm inventar xərclərini azaldır, həm də məhsula olan tələbi artırır. Prosesin təşkili isə öz növbəsində keçmiş addımların əsasında həyata keçirilir.

**Addım 5:** Davamlı inkişaf (Kaizen)

Yapon dilində "Kaizen" davamlı inkişafı təmsil edir. Lean prinsiplərində ilk addım ən önəmli olaraq qeyd edildisə, davamlı inkişaf ikinci yerdə dayanır. Buna baxmayaraq davamlı inkişaf bir tək mərhələdən ibarət deyil. Çünki davamlı inkişaf müəssisə tərəfindən daima yoxlanmalı və müəssisə özünü daima inkişaf etdirməlidir.

Son addımın da tamamlanması ilə isə müəssisə artıq Lean prinsiplərini tam olaraq həyata keçirmiş sayılır və Qənaətcil İstehsal Metodundan istifadə edir. Bu metod hər növ itkinin aradan qaldırılmasını və optimal istehsalın təmin edilməsini əsas hədəf qoyur. Qənaətcil istehsal metodunda itkilər "Muda" adlanır. Bundan əlavə "Mura" və "Muri" də var. Hər üç termin optimal isthesal üçün təhlükə hesab edilir və aradan qaldırılması vacib şərt hesab edilir. "Muda" istehsal zamanı yaranan bütün itkiləri simvolizə edir. Buraya zaman itkiləri, maddi itkilər, xammal itkiləri, zay olmuş məhsullar, tullantılar və s. aiddir. "Mura" qeyri-balanslaşdırılmış istehsalı simvolizə edir. Zavodun öz potensialını düzgün balanslaşdırmaması artıq xərclərə gətirib çıxarır. Məsələn, zavoddakı iki eynihəcmli maşından birinin 3,000 ton digərinin isə 6,000 ton məhsul emal/isthesal etməsi lazımsız avadanlıq xərcləri yaradacaqdır. "Muri" isə istehsal zamanı artıq yüklənmənin simvoludur. Muri zavodun amortizasiya xərclərini şiddətli artırır, fəaliyyət müddətini azaldır.

Qənaətcil İstehsal Metoduna əsasən itkilərin ("Muda"-nın) yaranmasında 7 əsas səbəb rol oynayır. Bu səbəblər istehsalda artıq xərclər yaradır, bu da Lean prinsiplərinə ziddir. 7 əsas "Muda" aşağıdakılardır.

1. *Artıq məhsul istehsalı nəticəsində yaranan itkilər* – müştərilərin tələbindən artıq məhsul istehsalı artıq xərclərə gətirib çıxarır. Çünki əlavə məhsulların daşınması, saxlanılması xərcləri artıq xərclərdir və bu xərclər Qənaətcil İstehsal Metoduna əsasən qəbuledilməz hesab edilir.

2. *Gərəksiz daşıma nəticəsində yaranan itkilər* – Zavod daxili və ya xarici anbarların istehsal müəssisələrindən aralı olduqda lazımsız daşınma xərcləri yaranır. Bunun qarşısını almaq üçün ən optimal variant daşınma xərclərinin minimuma endirilməsi məqsədi ilə anbarların istehsal müəssisələrinə yaxın yerləşdirilməsidir. Digər bir yol isə yuxarıda da qeyd edildiyi kimi, artıq istehsalın qarşısını almaqla lazımsız daşınma xərclərini minimuma endirməkdir.

3. *İzafi ehtiyatlar nəticəsində yaranan itkilər* – Xammalın çox olması ilk baxışda müsbət bir hal kimi qəbul edilsə belə, həmişə yaxşı hal olmaya bilər. Çünki lazımından artıq/izafi ehtiyatlar isthesal və saxlanma xərclərinin artması ilə nəticələnir. Bunun ən böyük nümunələrindən biri ötən illərdə COVID-19 infeksiyasının yayılması səbəbindən məcburi karantin şəraiti dövründə istehsalı dayandırıla bilməyən izafi neft ehtiyatlarının saxlanılması üçün əlavə tankerlərin icarəyə götürülməsi, hətta saxlanıla bilməyən neft ehtiyatlarının mənfi qiymət bahasına satılmasıdır.

4. *Lazımsız hərəkətlər nəticəsində yaranan* itkilər – Xammal və ya hazır məhsulun lazımından artıq daşınması lazımsız xərclərin yaranmasına gətirib çıxarır. Günümüzdə bir çox iri şirkətlər strateji planlaşdırma zamanı Qənaətcil İstehsal Metodunu mənimsəməyə çalışır. Buna görə onlar zavod yerləşdirməsi zamanı məhsulun zavodlararası və hazır məhsulun anbarlara daşınma planını ən optimal formada qurmağa çalışırlar.

5. *Qüsurlu və ya zay məhsullar nəticəsində yaranan itkilər* – İxtisaslaşmış işçilər və modern avadanlıqlar xammal israfını azaltsa da, qüsurlu məhsulların istehsalı qaçınılmaz olur. Qənaətcil İsthesal Metodu bu kimi halların qarşısını almaq üçün Lean prinsiplərinin 3-cü addımına baş vurur. Eyni zamanda həmin qüsurlu məhsulların da dəyərləndirilməsi mümkündür. Belə ki qüsurlu məhsullar aşağı qiymətdən satıla və ya təkrar emala cəlb oluna bilər.

6. *Artıq emal nəticəsində yaranan itkilər* – Həddindən artıq emal müştəri nöqteyi-nəzərindən məhsula və ya xidmətə dəyər qatmayan əməliyyatların yerinə yetirilməsidir. Bu o deməkdir ki, tələbatdan artıq istehal olunmuş hər bir məhsul müəssisənin istifadə etdiyi artıq resursdur və onun potensialını azaldır.

7. *Gözləmələr nəticəsində yaranan itkilər* – İnsan, material, avadanlıq və ya məlumatların gözlənilməsi səbəbindən işdə yaranan fasilələr iqtisadi səmərəliliyə mənfi təsir göstərə bilər. Vaxt itkisinə yol verməmək və planlaşdırılmamış boş dayanmaların (avadanlıqların işləməməsi səbəbindən) qarşısını almaq üçün istehsalçılar avadanlıqlara vaxtı-vaxtında texniki xidmət göstərilməsi üçün müvafiq tədbirlər görməlidirlər. Bundan əlavə, məhsullar bir istehsal sahəsindən digərinə rahat şəkildə hərəkət edə bilməsi üçün istehsal qrupları arasında effektiv əlaqə həyata keçirilməlidir.

Qənaətcil İstehsal Metodunun uğurlu olması bilavasitə bir neçə amildən ibarətdir. Həmin amillərə *Layihələrin idarə edilməsi, Qrup halında iş, Tədarükçülərlə münasibətlər, Bilik mədəniyyəti, İnteqrasiya edilmiş mühəndislik, İstehlakçıya yönəlmə* aiddir.

**Layihələrin idarə edilməsi** deyildikdə bütün istehsal sisteminin əvvəlcədən planlaşdırılaraq "Muda"-ların aradan qaldırılması nəzərdə tutulur. Müəssisələr xammalın alınmasından başlayaraq son məhsulun əldə olunmasına qədər, satış prosesi, məhsulun daşınması və s. kimi bütün məsələləri planlaşdıraraq dəyər yaratmayan prosesləri istehsaldan çıxara bilərlər.

**Qrup halında iş** komanda anlayışını əks etdirir.

**Tədarükçülərlə münasibətlər** xammal təsisçisi ilə olan əlaqələri özündə cəmləşdirir. Tədarükçülər ilə bağlanmış müqavilələr, onlarla şifahi və yazılı danışıqlar, öncədən yaxud sonradan ödəniş və s. münasibətlər əlaqələrin gələcək inkişafında güclü rola malikdir. Uzunmüddətli yaxşı tədarükçü potesnial araşdırma xərclərinin qarşısını almağa kömək edir.

**Bilik mədəniyyəti** istehsalda birbaşa iştirak edən işçilərin bilik səviyyəsini artırmaqla keyfiyyəti artırmaq, diqqətsizlik və ya biliksizlik nəticəsində baş verə biləcək qəzaları azaltmaqla xərcləri də azlatmaq məqsədini daşıyır.

**İnteqrasiya edilmiş mühəndislik** həm də ERP sistemləri kimi tanınır. Dördüncü Sənaye İnqilabının tələbi olan istehsalda elektronlaşma çox sahədə insan gücünü avtomatlaşdırılmış sistemlər ilə əvəz etməyi və beləcə də xərcləri azaltmağı hədəfləyir. Belə sistemlər sabit hərəkətlər ardıcıllığı olan alqoritmlər ilə işləyərək qəza ehtimalını, həmçinin zay məhsul istehsalını azaldır.

**İstehlakçıya yönəlmə** hər bir məssisənin əsas hədəflərindəndir. Nəticə etibarı ilə hər bir müəssisə ən sonda hazır məhsulu istehlakçıya təqdim edir. İstehlakçıya verilən dəyər onun yenidən müəssisənin müştərisi olmaq ehtimalını artırır. İstehlakçının Ömürboyu Dəyəri "LTV" (Life Time Value) onun müəssisəyə nə qədər bağlı olduğunu göstərir. Bu dəyər həm də xərcləri azaltmağa yardım edir. Müştəri Ömürboyu Dəyəri "CLTV" (Customer Life Time Value) hesablanması aşağıdakı kimi aparılır.

Ömürboyu Dəyər = Satışların Orta Çəkili Dəyəri * Əməliyyat Sayı * Saxlanma müddəti

Müştərinin Ömürboyu Dəyəri = Ömürboyu Dəyər * Mənfəət Marjası

Burada, **Satışların Orta Çəkili Dəyəri** – Müəssisə üçün müəyyən dövr ərzində əldə edilmiş cəmi gəliri həmin dövr ərzində müştərilər tərəfindən edilmiş alışların cəminə bölməkə hesablanır.

Qənaətcil İstehsal Metodunun tətbiqi üçün nəzərdə tutlmuş alətlər həm müəssisə, həm də işçilər tərəfindən təmin edilməlidir. Beləliklə, bu alətlərə misal olaraq aşağıdakıları göstərmək olar.

**1. Təmizliyə və nizam - intizama riayət edilməsi hesabına effektiv iş yerinin təşkil edilməsi və iş yerində keyfiyyətin yaxşılaşdırılması** əməliyyatların effektiv yerinə yetirilməsinə, vaxta qənaət edilməsinə, məhsuldarlığın və əməyin təhlükəsizliyinin artırılmasına, iş yerində nizam-intizamın və təmizliyin yaradılmasına və tələb olunan səviyyədə saxlanılmasına imkan verir.

**2. İşin standartlaşdırılması** işlərin yerinə yetirmə vaxtı, əməliyyatların icra ardıcıllığı və tələb olunan ehtiyatların miqdarı da daxil olmaqla, istehsal fəaliyyətinin həyata keçirilmə ardıcıllığını və qaydalarını, o cümlədən bu faəliyyətlərin başa çatma vaxtını dəqiq təsvir edən prosedurdur.

**3. Davamlı inkişaf ("Kayzen")** davamlı inkişafı nəzərdə tutan idarəetmə metodudur. Kayzenin əsas məqsədi itkilərə səbəb olan proseslərinin (həddindən artıq istehsal, yararsız mexanizmlər və s.) aradan qaldırılması, hər bir işçinin fəaliyyətinin optimallaşdırılması hesabına bütün istehsal proseslərinin davamlı inkişafıdır. Kaizen, hər bir işçinin və təşkilatın biznes proseslərini, bütövlükdə fəaliyyətini davamlı olaraq inkiçaf etditməyə imkan verir.

**4. Dəyərin yaradılması axınının idarə edilməsi (Value Stream Management, VSM)** müştəri sifarişlərini yerinə yetirmək üçün lazım olan məlumat və material axınlarının vizual görüntüsünü yaratmağa yönəlik bir metoddur. VSM istehsal prosesi addımlarının ardıcıllığını təhlil etməyə, həmçinin məhsul və ya xidmət (məhsul və ya xidmət yaradıldığı andan müştəriyə çatdırılana qədər) barədə məlumat əldə etməyə imkan verir.

**5. Vizuallaşdırma metodu** məlumatların əyani şəkildə (rəsm, fotoşəkil, qrafik, diaqram, diaqram, cədvəl, xəritə və s.) təqdim olunması və mövcud vəziyyətin təhlili və əsaslandırılmış və obyektiv qərarların qəbul edilməsi üçün real vaxt rejimində işçilərin diqqətinə çatdırılması məqsədilə tətbiq edilir. Bu metod prosesinin bir iştirakçısını istehsal sistemin performansını dərhal qiymətləndirə bilməsi üçün məlumatlarla təmin edir.

**6. Alət və avadanlığın sürətlə yenidən sazlanması ("SMED")** alət və avadanlığın sürətlə yenidən sazlanması metodudur. Bu metod bir məhsuldan digərinə keçid prosesində (dəyişmə müddəti) sərf olunan ümumi vaxtı minimuma endirməyə, yəni vaxta qənaət etməyə imkan verir. SMED-in tətbiqi zamanı bütün proseslər daxili və xarici əməliyyatlara ayrılır. Daxili əməliyyatlar avadanlıq işləmədiyi zaman icra edilən əməliyyatlardır. Xarici əməliyyatlar isə avadanlıq işləyərkən icra edilən əməliyyatlardır. "SMED" metodunun tətbiqi nəticəsində hər hansı bir alətin dəyişdirilməsi və ya avadanlığın sazlanması qıza müddətdə mümkün olur.

**7. Səhvlərdən qorunma sistemi ("Poka-Yoke")** insanla bağlı baş verə biləcək səhv ehtimalını aradan qaldırmağa yönəlik keyfiyyət idarəetmə və prosesin davamlı inkişafı metodudurr. Bu metod yapon mühəndisi Shingo Shiego tərəfindən işlənmiş və istehsalda tətbiq edilmişdir. "Poka Yoke" sistemində səhv mənbəyinə nəzarət istehsal prosesinin özünün bir hissəsi kimi nəzərdən keçirilir və səhvlər qüsurlu məhsulun yaranmasından əvvəl aşkarlanır. Bu cür nəzarət istehsalın bütün mərhələlərində aparılır və qüsurları müəyyən etmək üçün onların baş vermə yerləri müəyyən edilir. "Poka Yoke" metodunun tətbiqi səhvlərin qarşısını almağa və onları operativ şəkildə aradan qaldırmağa imkan verir.

**8. Daxili və xarici istehlakçıların tələb etdiyi məhsul həcmini "tam vaxtında" istehsal etmə ("Kanban")** – yapon terminidir, açıqlaması "siqnal" və ya "kart" mənasını verir. Bu metoddan məhsul və materialı qənaətcil istehsal xəttinə keçirmək üçün istifadə olunur. Kanban hər bir istehsal əməliyyatında materiallarla təchiz etməni, məhsulların zəruri miqdarda və lazım olan vaxtda istehsal və daşınması proseslərini tənzimləyən bir informasiya sistemidir. Kanban qarşıya qoyulmuş vəzifələrin yerinə yetirilməsi prosesini izləməyə, işçilər arasında iş yükünü bölüşdürməyə kömək edir. Bu metod komandanın işini effetiv şəkildə idarə etməyə və onun yerinə yetirmə müddətini izləməyə imkan verir.

**9. "Tam zamanında istehsal" (JIT)** sistemi istehsalın bütün mərhələlərində israfın (itkinin) qarşısının alınması və xərclərin azaldılması məqsədilə tətbiq edilir. Bu sistem məhsulun dəyərini artırmayan bütün amilləri israf (itki) kimi qəbul edir. Tam zamanında istehsal sistemi məhsulların effekiv istehsalını həyata keçirmək, emal axınını asanlaşdırmaq üçün düzgün iş yeri seçmək, işçilərin iştirakını təmin etmək üçün proqramlar yaratmaq, qüsurlu malları və ehtiyatları azaltmaq, eləcə də, davamlı inkişafı təmin etmək prinsiplərini üstün tutur. Tam zamanında istehsal sistemi istehsal prosesində standart məhsulların sabit istehsalı həyata keçirildikdə, məqbul sayda əmtəə və yüksək

dəyərli məhsullar istehsal edildikdə, çevik, işləmə təcrübəsi və məsuliyyətli işçi qüvvəsi mövcud olduqda tətbiq edilə bilər.

**10. Avadanlığa ümumi qulluq (Total Productive Maintenance, TPM)** "avadanlıqlara ümümi qulluq" mənasini verir, əsasən avadanlıqların keyfiyyətini artırmağa xidmət edir. Bu metod universal profilaktik xidmət sayəsində maksimum effektiv istifadəyə yönəldilir. TPM sisteminin məqsədlərindən biri diqqəti avadanlığın qüsurlarına yönəltmək, nasazlıqları aradan qaldırmaq və vaxtından əvvəl aşınmanın qarşısını almaqdır. TPM-in uğurlu tətbiqi avadanlığın məhsuldarlığını artıra bilər, həmçinin təmir və ümumi əməliyyat xərclərini əhəmiyyətli dərəcədə azaltmaqla, təhlükəsiz və ekoloji cəhətdən təmiz iş yerləri yarada bilər.

| **Ənənəvi istehsal üsulu** | | **Qənaətcil istehsal üsulu** |
|---|---|---|
| **Müştəri məmnuniyyəti** | Mühəndislərin istədiyi: çox miqdarda və statistik olaraq qəbul edilə bilən bir keyfiyyət səviyyəsində istehsal | Müştərilərin istədiyi: problemsiz, zamanında və sifariş etdikləri miqdarda istehsal |
| **Liderlik** | Səlahiyyətlilərin (CEO) əmri və təzyiq altında olan liderlik | Geniş vizyonlu bir liderlik |
| **Təşkilat** | Bir şəxs tərəfindən idarə olunan | Komanda ruhunda idarə edilən |
| **Xarici işlər** | Maddiyata, ödənişə bağlı | Uzunmüddətli əlaqələrə bağlı |
| **İnformasiyanın əldə edilməsi** | İşçilərin zəif məlumatlandırıl- ması | Bütün işçilərin tam məlumatlandırılması, nəzarət sisteminə əsasən verilən qərarlar. Zəngin informasiya mübadiləsi |
| **Mədəniyyət** | Sədaqət və itaət mədəniyyəti: yadlaşma və işçilərin bir-biri ilə qarşıdurmasının submədəniyyəti | İnsan resurslarının uzun müddətli inkişafına yönəlik formalaşmış mədəniyyət |
Bu göstəricilərin formalaşdırılması ilə banklar rəqəmsal pul dövriyyələrini yaratmış olur. Burada göstərilən hər bir faktor bankın gəlir mənbəyini, başqa sözlə maliyyə resurslarını formalaşdırır. Müxətlif növdə bank əməliyyatlarının həyata keçirilməsi üçün rəqəmsal sistemdən istifadə zamanı müəyyənləşdirilmiş xidmət haqlarının tutulması, vətəndaşlar üçün nəzərdə tutulmuş istehlak, nağd pul, ipoteka, biznes və bu kimi digər başqa kreditlərin verilməsi, vətəndaşların şəxsi vəsaitlərinin depozit formasında əmanət olaraq banka qəbul edilməsi, ölkədaxili bank sektorunun normativ tələbləri çərçivəsində müəyyənləşdirilən faiz dərəcələrinin təyin edilməsi, nağdlaşdırma əməliyyatlarının icrası zamanı xidmət haqlarının tutulması, müxtəlif xüsusiyyətli və istifadə imkanı təqdim edən özəl və xüsusi əməliyyatlardan yararlanmaq üçün əlavə ödənişlərin alınması ilə göstərilən xidmətlərin təklif olunması kimi amillərin hər biri bankın gəlirlərini təmin edir.

Rəqəmsal bank sisteminin qurulmasında və pul dövriyyəsinin təşkil edilməsindən başqa, rəqəmsal valyutaların istifadəsi də təmin olunur. Rəqəmsal valyuta kağız pul, əskinaz, sikkə kimi fiziki olaraq deyil, tamamilə virtual olaraq elektron formada təşkil olunmuş pul vahidlərinin toplusudur. Rəqəmsal valyuta, müxtəlif cihazlardan internet resursları vasitəsilə bank əməliyyatlarının, ödəniş və

köçürmələrin həyata keçirilməsini təmin etmək üçün istifadə olunan rəqəmsal vəsaitlərdir. Bu rəqəmsal vəsaitlər bankın ATM-lərindən, yaxud, filiallarında nağd pul vəsaitlərinə çevrilə biləcək vəsaitlərdir. Bundan başqa, rəqəmsal valyuta bankların beynəlxalq sektora çıxış imkanı deməkdir. Beynəlxalq birja və fondların, indekslərin, dəyərlərin, kriptovalyutaların inteqrasiyası və qarşılıqlı əlaqəsini təmin etmək üçün banklar rəqəmsal valyutalarla mübadilənin təşkil edilməsinə çalışır.

Rəqəmsal valyutalar ölkələrin müxtəlif səviyyəli və qiymətli pul vahidləri olaraq çıxış edir. Azərbaycanın öz rəqəmsal valyutasının, yəni rəqəmsal manatın yaradılması üçün müxtəlif ölkələrin təcrübələrindən yararlanmaqla araşdırılmaların aparılması və rəqəmsal manatın yaradılması üçün tələb olunan mühit və resursların təmin edilməsi istiqamətində aktiv işlər aparılır. Lakin, nəzərə almaq lazımdır ki, bu, olduqca çətin və vaxt tələb edən bir prosesdir. Məhz bu səbəbdən də, bütün dünya dövlətləri belə rəqəmsal valyutaların yaradılması və tətbiq edilməsi məsələsində heç də tələsmir və müxtəlif sınaqların, təcrübələrin aparılması ilə lazımı məlumatların, tələb olunan təminatların müəyyənləşdirilməsi üçün pilot layihələr irəli sürürlər. Bu baxımdan, aşağıdakı cədvəldə dünya dövlətlərinin mövcud CBDC vəziyyəti göstərilmişdir.

***Cədvəl 1.*** Dünya ölkələrinin mövcud CBDC vəziyyəti.




***Mənbə:*** "Atlantic Council" geoekonomik mərkəzi, 2024

Cədvələ əsasən dünya dövlətlərinin CBDC üzrə real vəziyyəti, bu istiqamətdə aparılan işlərin cari durumunu anlamaq mümkündür. Rəqəmsal valyutanın tədavülə buraxılması məsələsi yalnız ölkəmiz üçün deyil, bütün dünya dövlətləri üçün olduqca mürəkkəb proses olub, zaman və təcrübə tələb edən bir mexanizmdir.

## NƏTİCƏ

Rəqəmsal sistemin qurulmasında istifadə olunan metodların və üsulların, vasitələrin müəyyənləşdirilməsi ilə bankların rəqəmsal sistemlərinin günün və sektorun tələblərinə uyğunluğu təmin edilmiş olur. Bu baxımdan, rəqəmsal bank sistemlərinin qurulmasında istifadə edilən iki fərqli yanaşmanın – Xüsusi İnkişaf Xidmətləri və Bəyaz Etiket Həllərinin hər birinin ayrı-ayrı üstün və mənfi xüsusiyyətləri mövcuddur. Xüsusi unikal təkliflərin mövcud olması, rəqəmsal sistemin dizayn, funksionallıq, interfeys, təhlükəsizlik və bu kimi digər bütün parametlərin verilə biləcəyi tamamilə fərdiləşdirmə imkanlarının olması, müxtəlif dəyərlər fonunda ölçülə bilən olması kimi müsbət xüsusiyyətlərə malik olan Xüsusi İnkişaf Xidmətlərinin yüksək ilkin xərclər, sıfırdan yaradılması səbəbilə uzun müddətli inkişaf, fərdi və xüsusi tələblərdən asılı olaraq artan mürəkkəblik, aparılan xüsusiləşdirmə və fərdiləşdirmələrə əsasən yüksək uğursuzluq riski, xidmət provayderlərinin resursları və təcrübələrindən asılılıq kimi mənfi xüsusiyyətləri də mövcuddur. Bəyaz Etiket Həlləri isə rəqəmsal sistemin daha tez hazırlanması imkanı, istifadə edilən alt platformalar üzərində tam hüquqlu idarəetmə və nəzarət funksiyalarının mövcudluğu, təkmilləşdirmə əməliyyatları üçün daha sərfəli maliyyə

tələblərinin mövcudluğu, genişmiqyaslı əhatə dairəsi kimi müsbət xüsusiyyətlərə malikdir.

Azərbaycan üçün rəqəmsal manatın yaradılması zərurəti müasir bank sektorunun tələblərinə uyğun, eyni zamanda ölkənin beynəlxalq səviyyədə iqtisadi artımının möhkəmləndirilməsi baxımından olduqca əhəmiyyətlidir. Azərbaycan Mərkəzi Bankının bu baxımından aktiv fəaliyyəti bu istiqamətdə uğurlu addımların atılmasına yardımçı olmaqdadır. Uzun müddətli və olduqca mürəkkəb bir proses olmasına baxmayaraq, lazimi təcrübələrin və nəticələrin əldə olunması ilə rəqəmsal manatın yaradılması mümkündür.

**ƏDƏBİYYAT SİYAHISI**

1. Gomber P., Kauffman, R.J., Parker, C. & Weber, B.W. (2018) "On the Fintech Revolution: Interpreting the Forces of Innovation, Disruption, and Transformation in Financial Services". Journal of Management Information Systems, 35(1), 220-265

2. Higgins, S. (2019). "Financial Technology Adoption"

3. A new era of digital money, by Tobias Adrian and Tomaso Mancini, Finance and development, June 2021

4. L.V. & Flavian, C. (2019) "Artificial Intelligence in Fintech: understanding robo-advisors adoption among customers". Industrial Management & Data Systems, 119(7), 1411-1430

# AZƏRBAYCANDA QİYMƏTLİ KAĞIZLAR BAZARININ İNKİŞAFI SAHƏSİNDƏ MÖVCUD PROBLEMLƏR VƏ HƏYATA KEÇİRİLƏN İSLAHATLAR

**VAHİD MƏMMƏDOV**
Azərbaycan Kooperasiya Universiteti
Mühasibat uçotu və sənayenin təşkili fakültəsi, Azərbaycan bölməsi
*vahid_memmedov01@mail.ru*
BAKI, AZƏRBAYCAN

**XÜLASƏ**

**Tədqiqatın məqsədi.** Azərbaycanda qiymətli kağızlar bazarının inkişafı islahatlarını və bu islahatların qiymətli kağızlar bazarının kapitallaşmasına təsirlərini qiymətləndirməkdir.

**Tədqiqatın metodologiyası.** Tədqiqat işində müxtəlif yanaşmalardan, məntiqli ümumiləşdirmələrdən və digər üsullardan istifadə edilmişdir.

**Tədqiqatın tətbiqi əhəmiyyəti.** Dünya təcrübəsi göstərir ki, inkişaf etmiş bazar münasibətləri modeli üçün şaxələnmiş maliyyə sektoru və səmərəli fəaliyyət göstərən qiymətli kağızlar bazarının mövcudluğu zəruridir. İnkişaf etmiş qiymətli kağızlar bazarı iqtisadiyyatın tənzimlənməsi imkanlarını genişləndirir, maliyyə resurslarının real sektora cəlb edilməsini və sahələrarası sərmayə axınlarını asanlaşdırır, korporativ idarəetmə, təsərrüfat fəaliyyətində şəffaflığın artırılması kimi zəruri tələblər irəli sürməklə bütövlükdə iqtisadi sistemin daha səmərəli fəaliyyətini təmin edir.

**Tədqiqatın nəticələri**. Ölkədə qiymətli kağızlar bazarının əsas inkişaf meylləri aşkar edilmiş, dayanıqlı iqtisadi inkişafı təmin etməyə qadir, uzunmüddətli maliyyə mənbəyi kimi çıxış edən fond bazarının perspektiv inkişaf istiqamətləri əsaslandırılmış və onun fəaliyyətinin təkmilləşdirilməsi üzrə təklif və tövsiyyələr irəli sürülmüşdür.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi**. İqtisadiyyatda və maliyyə sistemində qiymətli kağızlar bazarının rolu, onun funksiyaları araşdırılmış, Azərbaycanın qiymətli kağızlar bazarının cari vəziyyəti, həyata keçirilən əsas əməliyyatlar, onun həcmi, bazarın ayrı-ayrı seqmentlərinin inkişaf dinamikası və

quruluşu təhlil edilmiş və qiymətli kağızlar bazarının inkişafı ilə bağlı istiqamətlər müəyyənləşdirilmişdir.

**AÇAR SÖZLƏR:** qiymətli kağızlar bazarı, qiymətli kağızlar bazarının peşakar iştrakçıları, "Qiymətli kağizlar bazari haqqinda" qanun

**EXISTING PROBLEMS AND IMPLEMENTED REFORMS IN THE DEVELOPMENT OF SECURITIES MARKET IN AZERBAIJAN**

**SUMMARY**

**The purpose of the study.** It is to evaluate the reforms of the development of the securities market in Azerbaijan and the effects of these reforms on the capitalization of the securities market.

**Research methodology.** Various approaches, logical generalizations and other methods were used in the research work.

**Applied significance of the research.** World experience shows that a diversified financial sector and an efficient securities market are necessary for a developed model of market relations. A developed securities market expands the possibilities of regulating the economy, facilitates the attraction of financial resources to the real sector and cross-sectoral investment flows, and provides more efficient functioning of the economic system as a whole by putting forth necessary requirements such as increasing transparency in corporate governance and economic activity.

**Results of the study.** The main development trends of the securities market in the country have been revealed,the prospective development directions of the stock market, which is capable of ensuring sustainable economic development and acting as a long-term source of finance, have been substantiated, and suggestions and recommendations have been put forward to improve its activity.

**Originality and scientific innovation of research.** The role of the securities market in the economy and the financial system, its functions were investigated, the current state of the securities market of Azerbaijan, the main operations carried out, its volume, the development dynamics and structure of individual market segments were analyzed, and the directions related to the development of the securities market were determined.

**KEYWORDS: securities** market, professional participants of the securities market, the law "On the Securities Market"

## GİRİŞ

Bu işin məqsədi Azərbaycanda qiymətli kağızlar bazarının inkişafı islahatlarını və bu islahatların qiymətli kağızlar bazarının kapitallaşmasına təsirlərini qiymətləndirməkdir. Fond bazarının yaradılması və dövlətin özəl sektorun iqtisadiyyata cəlb edilməsinə yönəlmiş səyləri bu diqqəti yaradıb. Bu tədbirlərin hər biri həm qısa, həm də uzunmüddətli hədəflərə aid olan məmurlar tərəfindən qoyulmuş kapital bazarının inkişafı üçün strateji çərçivənin bir hissəsidir. Bu sənəddə bazarın kapitallaşmasına spesifik hərəkətlərin nəzərdə tutulan və gözlənilməyən təsirlərini qiymətləndirmək üçün strateji çərçivədə nəzərdə tutulanlara uyğun olaraq bazar islahatları qiymətləndiriləcək. Təhlilin müddəti qiymətləndirilən konkret fəaliyyətlərlə üst-üstə düşəcək.

Tədqiqatın məzmunu

Bazar iqtisadiyyatı şəraitində hökumətimizin və iştirakçı ölkələrin iqtisadiyyatının üzləşdiyi əsas çətinliklərdən biri qiymət problemi, müqavimət problemi və istehsalçılar arasında ümumi borc problemidir. Çünki ümumi borc problemi yeni problemlər yaradır. Müəssisələr vergi ödəyə bilmirlər, çünki alıcılar satdıqları malların hesab-fakturalarını ödəmirlər. Vergi daxilolmalarının olmaması ölkənin büdcə planlarını yerinə yetirməsinə mane olur, iqtisadiyyatın bəzi sahələrinə dövlət dəstəyi ləngiyir və ya verilmir. Bütün bunlar bütün iqtisadi həyata təsir edir və hökumət iqtisadiyyatda, siyasətdə və digər sahələrdə gücünü itirir.

Müasir dövrdə bu problemlərin həll edilməsinin mümkün yolları barədə dövlət dairələrində və müəssisə miqyasında müvafiq tədbirlər görülür. Dövlət bu problemlərin həlli üçün qiymətli kağızlar bazarının inkişafını daha məqsədəuyğun hesab edir [1].

Ona görə də bu bazarın yaradılması ölkədə mövcud problemlərin həllinə təsir etməklə yanaşı, həm də iqtisadi inkişafa mühüm təsir göstərəcək və təsərrüfat subyektlərinin "iqtisadi fəaliyyətə" daha çox maraq göstərməsinə və fəal iştirakına şərait yaradacaq. Fond bazarı iqtisadiyyat üçün çox vacib olsa da və hökumət bu sahədə hərtərəfli islahatlar həyata keçirsə də, ölkəmizdə bu sahədə aparılan tədqiqatlar hələ də yetərli deyil. Bütün bunlar müəyyən bir mövzunun əhəmiyyətini müəyyənləşdirir.

Qiymətli kağızlar bazarının inkişafının ölkənin iqtisadi inkişafı üçün əhəmiyyəti heç vaxt inkar edilmir. Son illərdə bu mövzu geniş şəkildə öyrənilmiş və müzakirə edilmişdir. Bununla belə, ölkənin iqtisadi inkişafı perspektivində qiymətli kağızlar bazarı maliyyə vasitəçisinin xüsusi növüdür və onun özünəməxsus rolu vardır. Qiymətli kağızlar bazarının mövcudluğu və ya olmaması və daha da önəmlisi qiymətli kağızlar bazarının növünə görə ölkəyə bir sıra üstünlüklər və çatışmazlıqlar yaranır. Xüsusi problemlər və dəyişikliklər müdaxilələri ilə bu vəziyyətin şərti vəziyyəti bu işin mövzusudur.

Azərbaycanda qiymətli kağızlar bazarının inkişafı sahəsində mövcud problemlər və həyata keçirilən islahatlar nümunə kimi təhlil edilir. Bu mətn iddia etmir ki, əgər digər qiymətli kağızlar birjalarını araşdırsa, onlar eyni məsələlərə qarşı çıxmış və ya oxşar dəyişikliklərə başlamış ola bilərlər. Bu məsələlər və dəyişikliklər müvafiq millətin maliyyə, ictimai-siyasi və qanuni mühitində müəyyən edilir. Biz iki fərqli problem növü baxımından məsələlər və dəyişikliklərə müdaxilələr haqqında danışacağıq. Birinci növ problem inkişaf etmiş və ya inkişaf etməkdə olan bütün ölkələrdə qiymətli kağızlar bazarının inkişafı üçün ümumi olan problemlərdir. İkinci növ inkişaf etməkdə olan ölkələrdə qiymətli kağızlar bazarının inkişafı üçün səciyyəvi olanlardır. Birinci növ problemlər keçici olaraq müzakirə olunacaq, bizim müzakirəmizdə əsas diqqət ikinci növ problemlərə yönəldiləcək. Tədqiqatın mövzusu çox maraqlıdır; bəlkə də Azərbaycan dünyada yeganə ölkədir ki, belə vəziyyətlə üzləşib. Əksər ölkələr birjadan kənar (OTC) bazarından birjaya qaçdılar. Azərbaycan tam əksini etdi. 2000-ci ildə birjasını ləğv etdi və dövlət sabit gəlir gətirən qiymətli kağızların ticarəti üçün birjadankənar bazara qayıtdı. Bu dəyişiklik və ondan sonra baş verən hadisələr qiymətli kağızlar bazarının problemlərinin araşdırılması üçün yeni yollar açdı, çünki dövlət qiymətli kağızları risksizdir və eyni zamanda bundan əvvəl qarşılaşdığı təəccüblü bir vəziyyət birjanın qeyri-səmərəli və yüksək likvid olması idi. təbii olaraq birja ən səmərəli və likvid bazardır.

Azərbaycanda qiymətli kağızlar bazarının tarixi

2000-ci ili Azərbaycanda qiymətli kağızlar bazarının yaradılması istiqamətində başlanğıc nöqtəsi kimi qiymətləndirmək olar. Müasir birja ticarəti sisteminin inkişafı çərçivəsində hüquqi mühitin, o cümlədən tələb olunan infrastrukturun yaradılması istiqamətində həyata keçirilən müxtəlif tədbirlər həmin strategiyaların reallaşdırılması üçün əsas zəmin yaradıb. Bu, o vaxt idi ki, hökumət tərəfindən buraxılmış Azərbaycan manatının, eləcə də müxtəlif məbləğlərdə milli valyutada olan borc qiymətli kağızlarının qeydiyyatı Maliyyə Nazirliyi tərəfindən Bakı Fond Birjasında həyata keçirilirdi. Növbəti mərhələyə keçidlə 2001-ci ildə bəyan edilmiş strategiyaların uğurla həyata keçirilməsinə başlanılıb. Bu, İqtisadi Siyasət Nazirliyi ilə Birləşmiş Millətlər Təşkilatının İnkişafı arasında həyata keçirilən "Qiymətli kağızlar bazarının yaradılması və qiymətlərin formalaşması üzrə məsləhətlər" layihəsinin həyata keçirildiyi mərhələdir. Proqram.

Bununla belə, qiymətli kağızlar bazarı sahəsində normativ hüquqi aktların tətbiqi və icrası ölkəmizdə qiymətli kağızlar bazarının yaradılması istiqamətində konkret fəaliyyətə başlayan mərhələ kimi qiymətləndirilməlidir. Bu dövr birja haqqında ilk qanunun qəbul edildiyi mərhələ kimi tanınır. Bakı Fond Birjasının yaradılması istiqamətində ilkin addımların atılması, qiymətli kağızlar bazarı sahəsində müxtəlif hüquqi aktların qəbulu ilə ölkədə bu sahədə hazırlanmış strategiyaların uğurla həyata keçirilməsi istiqamətində bir çox müsbət dəyişikliklər baş verdi. .

Azərbaycanda bazar iqtisadiyyatına keçid mərhələləri ölkədə qiymətli kağızlar bazarının yaradılması istiqamətində ilkin addımlar atdı. Qiymətli kağızlar bazarının inkişafına dair Milli Strategiyanın müəyyən edilməsi, qiymətli kağızlar bazarı ilə bağlı qanunların və normativ hüquqi aktların təsdiq edilməsi, qiymətli kağızlar sahəsində dövlət orqanının (Fond Birjasında Fəaliyyətin Tənzimlənməsi üzrə Dövlət Təhlükəsizliyi Komitəsi) yaradılması və hüquqi mühitin yaradılması (müxtəlif normativ hüquqi aktların, o cümlədən Mülki Məcəllənin, Sahibkarlıq Məcəlləsinin, Vergi Məcəlləsinin və s. işlənib hazırlanması çərçivəsində) qiymətli kağızlar bazarının yaradılması üçün zəruri ilkin şərait yaratmışdır.

Qiymətli kağızlar bazarının inkişafının əhəmiyyəti

Yaradılmış qiymətli kağızlar bazarı da ümumi açıq və strateji siyasətlərə əhəmiyyətli dərəcədə təsir göstərir. Qiymətli kağızlar bazarları müxtəlif insanların toplanması üçün geniş fərziyyə açılışları və üstünlüklər təqdim edir.

Qiymətli kağızlar bazarları insanlara kapital üçün fərqlənməz şanslar verir. Azərbaycanda bir neçə vençur imkanları var, məsələn, təlim, neft sənayesi və s. Gələcək mənfəəti axtaran şəxslər resursları müəssisələrə qoymalıdırlar; Təhlükəsizliyin reklamı yoxdursa, bu şəxslər müxtəlif bölmələri

işğal edəcəklər. Tacikistanın "Asia-Plus" agentliyinin günbəgün etdiyi icmaldan göründüyü kimi, Gürcüstan postsovet ölkələri arasında uzaq fərziyyələrə qarşı müxalifətdə qalib gəlib. Müəssisənin Gürcüstanı niyə dəyişdirməsinin arxasında qeyri-adi motivasiya, işlərinin qayğısına qalmalı olan və kapital axtaran insanların olması ola bilər; Bu yaxınlarda belə qiymətli kağız bazarlarına malik olan Gürcüstan bu qətiyyətli insanlar qruplarına öz peşələri üzrə çoxsaylı maraqlar təklif edir.

Müasir iqtisadiyyatın həlledici inkişaf edən hissəsi maliyyə resurslarını kapital növlərindən kapital istehlakçılarına yönəldən qiymətli kağızlar bazarıdır. Nağd pulların çoxsaylı pul institutlarından keçdiyi məqamda aktivlər müəyyən səbəblərdən istifadə olunur. Bu prosedur zamanı nağd pullar, şübhəsiz ki, çoxsaylı pul bazarlarından birində hökumətlər, banklar və ya təşkilatlar vasitəsilə keçəcək. Nəhayət, nağd pul müxtəlif tapşırıqlar üçün vəsait toplamaq istəyən təşkilatlara axışacaq. Yaradılan qiymətli kağızlar bazarı kapital tələb edən bu təşkilatlara kapitalın məhsuldar bölüşdürülməsini təşviq etmək üçün əsasdır. Yaşayış qabiliyyətli kapital bazarları olmadan, yeni və köhnə təşkilatlar fond toplamaq üçün saxlanılan puldan asılı olmağa məcbur olurlar. Nə olursa olsun, bəzi firmalar üçün bu mümkün alternativ deyil.

Qiymətli kağızlar bazarının inkişafının çoxlu faydaları olsa da, liberallaşdırma və avtomatlaşdırma bir çox insanlar üçün əhəmiyyətli iş itkisinə səbəb ola bilər. Belə ki, hökumət millətin məşğulluğuna təsir edə biləcək hər hansı siyasəti həyata keçirərkən həmişə bu məsələni nəzərə almalıdır. İnkişaf etmiş qiymətli kağızlar bazarı bu sənaye növbəsi işçilərinə pullarını keçmiş iş yerlərindən yarana biləcək kapitala və ya digər qiymətli kağızlara investisiya etmək üçün müxtəlif alternativlər təqdim edir.

Kapital bazarlarının qloballaşması bir çox inkişaf etməkdə olan ölkələri qiymətli kağızlar bazarlarını inkişaf etdirməyə sövq etdi, lakin millətlər arasında əhəmiyyətli dərəcədə fərqli institutlar və resurslar müxtəlif inkişaf yolları yaratdı. Liberallaşma və beynəlxalq maliyyə birliyindəki sürətli dəyişikliklər bütün ölkələrə qiymətli kağızlar bazarını uyğunlaşdırmaq və gücləndirmək üçün təzyiq göstərmişdir. Onlardan artan beynəlxalq kapital axınını dəstəkləmək, həm yerli, həm də xarici investorlar üçün investisiya imkanları təmin etmək və dövlət sənayesinin özəlləşdirilməsini sürətləndirmək xahiş olunur.

Qiymətli kağızlar bazarı müasir maliyyə sisteminin tərkib hissəsidir. O, ölkənin iqtisadi inkişafında mühüm rol oynayır, çünki o, vəsaitləri əmanətçilərdən investorlara yönəldir. Kapital bazarı vasitəsilə inkişaf üçün korporativ sektora daha çox vəsait yönəldilir ki, bu da ölkənin iqtisadi artımına birbaşa təsir göstərir. Səmərəli və inkişaf etmiş qiymətli kağızlar bazarı vəsaitlərin yönəldilməsi xərclərini minimuma endirməyə kömək edir, həmçinin əmanətlərin ən məhsuldar investisiyalara yönəldilməsini yaxşılaşdırır ki, bu da ölkənin iqtisadi inkişafı üçün vətəndaşların həyat səviyyəsini yüksəltmək üçün çox tələb olunur.

İnkişaf etməkdə olan ölkələrin qanunları və strategiyaları onların iqtisadi inkişafında və böyüməsində yaxşı işləyən kapital bazarlarının oynadığı mühüm rolu dərk edir. Bunun əsasında onlar qiymətli kağızlar bazarları üçün hüquqi və tənzimləyici mühiti yenidən strukturlaşdırırlar. Avropa İttifaqı (Aİ) üzvlük ölkələrində və Yeni Müstəqil Dövlətlərdə (NİS) islahatların hərəkətverici qüvvəsi olmuşdur və bu ölkələrin qiymətli kağızlar bazarlarının inkişafı üçün plan təqdim etmişdir. Bu plan investisiya biznesinin tənzimlənməsindən tutmuş qiymətli kağızların kütləvi təklifinə və listinqinə qədər müxtəlif qiymətli kağızlar bazarı məsələlərini əhatə edən və icra üçün son tarixləri verən Aİ direktivləridir. Direktivlər geniş və iddialıdır və əsasən investorları qorumaq və inteqrasiya olunmuş və səmərəli qiymətli kağızlar bazarlarını inkişaf etdirmək üçün nəzərdə tutulmuş bir rejim tətbiq edir. Qiymətli kağızlar bazarları üçün Aİ-yə uyğun rejim yaratmaq üçün NIS və üzvlük ölkələri bu direktivləri tam şəkildə həyata keçirməlidir. Bu ölkələr üçün bu rejimin tətbiqi problemli olacaq, bəziləri üçün isə yaxın gələcəkdə buna nail olmaq mümkün olmayacaq. Aİ direktivlərinə uyğunluq hökumət və ya qanunvericilik səviyyəsində və tənzimləyici orqanlar arasında çox yüksək səviyyədə hüquqi və tənzimləyici təcrübə tələb edir. Direktivlərin mahiyyətini qəbul etməklə yanaşı, ölkələr qiymətli kağızlar bazarının tənzimlənməsi üçün möhkəm və ardıcıl qanunvericilik bazası da hazırlamalıdırlar. Onların səyləri Aİ-nin yeni üzvlərinin artıq bu sahədə geniş qanunvericiliyə malik olması və onun ləğvi və yeni qanunların qəbulu üçün resurslar ayırmalı olması səbəbindən mane olacaq. Beləliklə, NIS və üzvlük ölkələri Aİ direktivlərinin həyata keçirilməsində həsəd apara bilməyəcək bir vəzifə ilə üzləşirlər və mənalı irəliləyiş əldə etmək üçün mübarizə apara bilərlər. Lakin

bunlar Aİ üzvlüyünə namizəd ölkələr olduğundan, çox güman ki, bu tip islahatlar davamlı proses olacaq və Aİ bunun üçün hərəkətverici qüvvə olacaq.

Qiymətli kağızlar bazarının inkişafına şərait yaradan qanunvericilik bazası və qaydaları yaratmaq və investorların maraqlarını qorumaq üçün hökumət 1998-ci ildən etibarən bir sıra qanunlar qəbul etmişdir ki, bunlardan ən mühümləri "Qiymətli kağızlar bazarı haqqında" (1998-ci il), "Qiymətli kağızlar bazarı haqqında" Qanundur. İnvestisiya fondları (1998), Səhmdar cəmiyyətləri haqqında qanun (2000). Bu qanunvericilik paketi islahatlar proqramının əsasını təşkil edir. Daha sonra, 2001-ci ildə hökumət tərəfindən hərtərəfli əsas strategiya sənədi təsdiq edildi və həyata keçirilən bir çox paralel fəaliyyətləri əlaqələndirmək üçün vaxta bağlı fəaliyyət planı yaradıldı. Bu iddialı proqramın icrasına Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi (QKDK) və bu yaxınlarda Bakı Fond Birjası (BFB) ASC rəhbərlik etmişdir, digər maraqlı tərəflərin fəal iştirakı və AİB-in ardıcıl texniki yardım layihələrinə güclü dəstək, təsdiq edilmiş 3-cü Kapital Bazarlarının İnkişaf Proqramı (CMDP).

Oçerkdə qiymətli kağızlar bazarının inkişafına strateji və inteqrasiyalı yanaşmanın həyata keçirilməsi üçün Asiya İnkişaf Bankı (AİB) və digər donorlar tərəfindən dəstəklənən Azərbaycan hökumətinin təşəbbüsü ilə həyata keçirilən genişmiqyaslı islahatlar və əsas dəyişikliklər silsiləsi müzakirə olunur. İslahatların əhatə dairəsi çox böyükdür və hüquqi və tənzimləyici dəyişiklikləri, institusional restrukturizasiyanı və bazarın inkişafı tədbirlərini əhatə edir. Bu islahatlar geniş miqyaslı olsa da, kapitalın səmərəli bölüşdürülməsini asanlaşdırmaqla iqtisadiyyatda əsas rol oynaya biləcək yaxşı işləyən qiymətli kağızlar bazarının yaradılması kimi ümumi məqsədi bölüşür.

Qiymətli kağızlar bazarının mövcud problemləri sırasında aşağıdakıları qeyd etmək olar:

Emitent problemi: İnvestisiya qiymətli kağızları kütləvi üsulla bazarda yerləşdirilmiş olan səhmdar cəmiyyətlərin və digər təşkilati-hüquqi formada olan emitentlərin qanunvericiliyin tələblərinə uyğun olaraq idarə olunması vacib məsələdir. Qeyd olunan emitentlərin korporativ idarəetmə standartlarını yetərli səviyyədə tətbiq etməmələri, qanunvericiliyin tələblərinə uyğun maliyyə uçot sisteminin formalaşdırılmaması, investorları qane edəcək səviyyədə və ardıcıllıqda məlumatların açıqlanmaması və s. məsələləri kapital bazarının tələblərinə uyğun emitentlərin formalaşmasının başlıca problemləri kimi qeyd etmək olar.

Şəffaflıq problemi: Kapital bazarına investisiyalar pul bazarına nisbətən daha uzundur ki, bu da investora emitent, şirkətin gələcək fəaliyyəti və strategiyanı təkmilləşdirən hadisələr haqqında daha ətraflı məlumat verilməsini şərtləndirir.

Maarifləndirmə problemi: Bu bazarların işləyə bilməsi üçün tələbin təklifi dəstəkləməsi, kifayət qədər maliyyə alətinin və investorun olması şərtdir. Hazırda ölkə maliyyə bazarlarında kifayət qədər az investorun və yatırımçının olması, bazarın imkanlarından iqtisadi subyektlərin az istifadə etməsi bazar haqqında məlumatların yetərsiz olduğunun göstəricisidir.

İnvestor institutlarının formalaşmaması: Bazarın əsas strukturlarında olan investisiya bankları, investisiya fondları, pensiya fondları kimi strukturlarınformalaşmaması bazarda əməliyyat həcminin, dərinliyin və likvidliyin yüksəlməsinə mənfi təsir göstərməkdədir.

İnvestorların hüquqlarının qorunması problemi: Bunun üçün dövlət və ya qismən dövlət, ictimai təşkilatlar kimi investorların qoruma sistemi formalaşdırmalıdır.

Məlumatların açıqlığı prinsipinin reallaşması: Bu, qiymətli kağız emitentlərinin fəaliyyəti haqqında nəşrlərin genişləndirilməsi, emitent-kompaniyaların qəbul olunmuş reytinq qiymətləndirməsinin tətbiq olunması, ixtisaslaşmış nəşrlərin (investisiya obyekti kimi ayrı-ayrı sahələri xarakterizə edən) şəbəkəsinin inkişaf etdirilməsi, qiymətli kağızlar bazarını qiymətləndirmək üçün qəbul olunmuş ümumi göstəricilər sisteminin yaradılması və s.

Bazarın kiçik həcmli və qeyri-likvid olması: Bu bazarın əsas fuksiyalarından biri likvid bazarının olması, yəni investor sahib olduğu aktivləri daha sürətli şəkildə başqa aktivlərə və nəğdə cevirə bilməsidir. Likvid və dərin bazarın formalaşmaması, fonunda riskin yüksəlməsi investorların qiymətli kağızlar bazarından uzaqlaşmalarına və diğər bazarlara yönəlməsinə səbəb ola bilir.

Son dövrlər ərzində azərbaycanda qiymətli kağızlar bazarının inkişafı sahəsində bir neçə istiqamətlərdə geniş islahatlar həyata keçirilmişdir.

Bu dövr ərzində qiymətli kağızlar bazarının hüquqi və tənzimləyici bazasının qabaqcıl beynəlxalq təcrübəyə uyğunlaşdırılması və sahəsində bir sıra tədbirlər görülmüşdür. Belə ki, müasir, beynəlxalq standartlara cavab verən, iqtisadiyyata geniş kapitalizasiya imkanları təqdim edən və risklərin etibarlı idarə edilməsini təmin edən yeni nəsil qanunvericilik, "Qiymətli kağızlar bazarı haqqında" Qanun

layihəsi hazırlanmış və Prezident Administrasiyasında müzakirələri tamamlanmışdır. Qanun layihəsinin Milli Məclisin növbəti sessiyası zamanı müzakirəyə çıxarılması nəzərdə tutulur. Bununla yanaşı, "Qiymətli kağızlar bazarı haqqında" Qanun layihəsindən irəli gələn 35 qanunaltı normativ sənədlər hazırlanmışdır. Qeyd olunan normativ hüquqi aktların "Qiymətli kağızlar bazarı haqqında" Qanun layihəsinin təsdiqlənməsindən sonra qüvvəyə minməsi planlaşdırılır [2].

Eyni zamanda, qiymətli kağızlar bazarında peşəkar fəaliyyətin təkmilləşdirilməsi, risk əsaslı prudensial tənzimləmə və nəzarət sisteminin yaradılması məqsədilə "Qiymətli kağızlar bazarında broker fəaliyyətinin həyata keçirilməsi" və "Qiymətli kağızlar bazarında diler fəaliyyətinin həyata keçirilməsi" Qaydaları təsdiq olunmuş və Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilmişdir. Həmçinin, qiymətli kağızlar bazarının peşəkar iştirakçıları tərəfindən QKDK-ya təqdim edilən hesabatlara dair tələbləri, habelə onların QKDK-ya təqdim edilməsi və açıqlanması proseslərinin tənzimlənməsi məqsədilə "Qiymətli kağızlar bazarının peşəkar iştirakçıları tərəfindən hesabatların təqdim edilməsi" Qaydalarına dəyişikliklər edilmiş və Azərbaycan Respublikasının Hüquqi Aktlarının Dövlət Reyestrinə daxil edilmişdir.

Olkənin fond bazarının inkişafında daha çox dovlət qiymətli kağızların üstün movqeyi nəzərə carpmaqdadır. Xususilə bazarın dovriyyəsində Mərkəzi Bankın qiymətli kağızlarının xususi cəkisi öz yuksəkliyi ilə nəzərə carpır. Korporativ qiymətli kağızların satışında və dovriyyəsində artım baş versə də, lakin səhmlərin təkrar bazarının inkişafına ehtiyac vardır. Səhm təkrar bazarının mövcud inkişaf səviyyəsi daha çox muəssisə və təsərrufatların, əsasəndə ozəl sektorun, qeyri-neft sənaye muəssisələrinin burada kifayət qədər fəallıq göstərməməsi ilə bağlıdır. Təsnifləşdirilmiş qiymətli kağızlar bazarı kateqoriyasına keçidin təmin edilməsi ölkənin fond bazarının inkişafı baxımından zəruridir. Bu kecid eyni zamanda səhm bazarının kapitallaşma səviyyəsinin artımı ilə sıx bağlıdır. Ölkənin fond bazarının kapitallaşma səviyyəsinin artımı baş versə də, lakin bu muəssisə və təsərrufat subyektlərinin kapital-investisiya ehtiyaclarının qarşılanması da yetərli sayıla bilməz. Belə ki, əsas kapitala investisiya qoyuluşlarının həcmi, həmin subyektlərin digər mənbələrdən maliyyə resurslarının cəlbi bazarın kapitallaşma səviyyəsindən hələ ki, üstündür. Fond bazarında muəssisə və təsərrufat subyektlərinin iştirak səviyyəsi və onların bazardan investisiya cəlbi, imkanları kifayət qədər yüksək deyildir. Bu amil, xususilə də özəl sektorun, qeyri-neft sənaye muəssisələrinin fəaliyyətində özünü göstərir.

Sənaye sektorunda aparıcı rol oynayan mədənçıxarma sahəsinin texniki imkanlarının yüksək olması və fond tutumluğu onun əsas istehsal fondlarının həcminin böyüklüyünü zəruriləşdirir. Lakin bir önəmli cəhəti də nəzərə almaq lazımdır ki, mədənçıxarma sənaye muəssisələrinin əksər hissəsi təbii inhisar subyekti olmaqla, dovlət mulkiyyətindədir. Bu baxımdan onların maddi-texniki təchizatının və investisiya-kapital qoyuluşları tələbatının qarşılanmasında əsas rol da dovlətə məxsusdur.

Qeyri-neft, əsasən də emal sənaye muəssisələri özəl sektora aid olunduğu ucun onların butun maddi-texniki və maliyyə ehtiyacları oz fəaliyyətinin nəticələrinə görə qarşılanır. Məhz bu növ milli muəssisələrin kapital-investisiya tələblərinin qarşılanmasında dunya təcrubəsində olduğu kimi olkənin də fond bazarının rolu daim yuksək qiymətləndirilməlidir.

Azərbaycanda fond bazarının inkişafı ilə bağlı yerli muəssisə və təsərrufat subyektlərinin ticarət markalarının bir brend kimi formalaşmasına ehtiyac vardır. Belə ki, fond bazarında öz səhmlərini yerləşdirən muəssisə və subyektlərin brendinə inam investorların bu istiqamətdə investisiya-kapital qoyuluşlarının artırılmasında əhəmiyyətli rol oynamaqla, fond bazarının ticarət dövriyyəsinin artmasına, səhm bazarının kifayət qədər kapitallaşmasına müsbət təsir gostərir.

Beynəlxalq təcrübədə fond bazarında satışa çıxarılan qiymətli kağızların, səhmlərin bazar qiymətini muəyyən edən muxtəlif indekslərdən istifadə edilir. Azərbaycan bazarında belə qiymətləndirici indekslərdən, səhmlərin bazar qiymətini daha aydın muəyyən edən vasitələrdən istifadə yubanmaqdadır. Belə indekslər ölkə iqtisadiyyatının inkişafının başlıca qiymətləndirici gostəricisinə cevrilməklə, əsasən də təkrar səhm bazarının inkişafında önəmli rol oynaya bilər. Qüymətli kağızların dövriyyəsinin artırılmasında, bu sahədə şəffaflığın yuksəldilməsində qiymətləndirici indekslərin tətbiqinin zəruriliyi nəzərə alınmalı, onun istifadəsini təmin edəcək texniki-iqtisadi metodoloji sənədlərin hazırlanması məsələsi də xususi diqqət mərkəzində saxlanılmalıdır. Ümumilikdə, bazarın muəyyən dərinliyinə nail olmaqla, indekslərin tətbiqinə nail olmaq daha məqsədəuyğundur. Belə ki, bazarın təkmilləşdirilməsi, aparılan əməliyyatların ceşidinin və

keyfiyyətinin yuksəldilməsi bu dərinliyin təmin edilməsində xususi əhəmiyyət kəsb edir. Bazarın inkişafı, burada iştirakcıların və investorların fəallığının yuksəldilməsi, onların qarşılıqlı maraqların qorunması məsuliyyətlikinam səviyyəsinin gucləndirilməsi kimi məsələlərlə sıx bağlıdır. Bununla bağlı, həmcinin informasiya şəffaflığının artırılması da zəruri məsələlərdən hesab olunur. Sahə uzrə huquqi-normativ bazanın məhz bu baxımından təkmilləşdirilməsinə ehtiyac artmaqdadır. Müvafiq hüquqi-normativ bazanın təkmilləşdirilməsi və informasiya sisteminin gucləndirilməsi ilə bağlı aşağıdakı amillərə diqqətin artırılması məqsədəuyğundur:

- informasiyanın acılması ucun zəruri olan tələblər sisteminin səmərəliliyinin artırılması;
- muəssisələrin informasiya şəffaflığının səviyyəsinin yuksəldilməsi;
- informasiyanın açılması sisteminin səmərəliliyinin artırılması;
- informasiyanın açılmasının hüquqi muhitini muəyyən edən qanunvericiliyin təkmilləşdirilməsi, informasiyanın açılması uzrə tələblərin yerinə yetirilməsi uzrə yoxlama və nəzarət mexanizmlərinin gücləndirilməsi, belə tələblərin pozulmasına gorə məsuliyyətin artırılması;
- emitentlərin məsuliyyətinin artırılması.

**TƏDQIQAT METODU**

Respublikamızın fond bazarının inkişafını ləngidən problemlər vardır ki bu maneələri tez bir zamanda aradan qaldırmaq mütləqdir. Fond bazarında baş verən mühüm problemləri aradan qaldırma üsulları aşağıdakılar aiddir:

-Bu sahəyə mənfi təsir edən xarici faktorları aradan qaldırmaq. Bununla belə istehsal sahəsində dirçəliş, sosial sabitliyin bərpa olmasına nail olmaq mümkündür;

-Qanunvericiliyin inkişafı və ona hər kəsin düzgün əməl etməsinə riayər etmək;-Respiblikamızın fond bazarına ölkənin təsirini daha da artırmaq lazımdır;

-İnvestorları qorumasını təmin etmək. Bu məqsədlə dövlət və nibətən dövlət qoruma strukturu yaradılmalıdır;

-Məlumat aydınlığını həyata keçirilməsi;

-Bu bazarın inkişafı məqsədiylə beynəlxalq təcrübəyə müraciət olunması.

Bunlarla yanaşı, qiymətli kağızlar bazarının ticarət və post-ticarət arxitekturasının sadələşdirilməsi, optimallaşdırılması və institusional inkişafı istiqamətində bir sıra yeniliklər həyata keçirilmişdir. Qiymətli kağızlar bazarının ticarət və post-ticarət əməliyyat infrastrukturunun modernləşdirilməsi məsədilə Dünya Bankının "Kapital Bazarlarının Müasirləşdirilməsi" layihəsi çərçivəsində qiymətli kağızlar bazarının inteqrasiya olunmuş ticarət, hesablaşma və nəzarət sistemlərinin satınalınması prosesinə 2014-cü il ərzində start verilmişdir. Satınnalma prosesinin 2015-ci ilin birinci rübü ərzində 10 yekunlaşdırılması, sistemlərin quraşdırılmasının 2015-ci il ərzində tamamlanması və 2016-ci ildən etibarən istismara verilməsi planlaşdırılır.

BFB-nın vəziyyətinin xarakterizə edən göstəricilərin təhlili istiqraz bazarının həcminin artdığını göstərir. Belə ki, 2018-ci illə müqayisədə 2020-ci ildə ilkin bazarda istiqrazlarla əməliyyatların həcmi 66,9%, təkrar bazarda isə təxminən 3,3 dəfə artmışdır. Dünya təcrübəsi göstərir ki, istiqraz bazarı ölkənin bank sisteminin əsasıdır, çünki istiqrazı girov qoymaqla həmişə pul vəsaiti cəlb etmək olar. Eyni zamanda onun alqı-satqısı daha əlverişlidir. Ona görə də inkişaf etmiş və miqyaslı istiqraz bazarına sahib ölkələrdə bank sistemi daha çox inkişaf edir [4].

Beləliklə, Azərbaycanın qiymətli kağızlar bazarının inkişafını ümumi şəkildə qiymətləndirərək demək olar ki, o, ümumdünya meyllərinə uyğun inkişaf edir, bazar infrastrukturu və onun peşəkar iştirakçıları beynəlxalq standartlar səviyyəsində fəaliyyət göstərir, bazarın gələcək və dayanıqlı inkişafı üçün yüksək potensialı vardır.

Ölkədə qiymətli kağızlar bazarının dayanıqlı inkişafının təmin edilməsi və ölkə iqtisadiyyatında rolunun yüksəldilməsi məqsədilə müəyyən tədbirlərin həyata keçirilməsi, o cümlədən qiymətli kağızlar bazarı sferasında qanunvericiliyin təkmilləşdirilməsi, qiymətli kağızların ilkin və təkrar bazarının moderinləşdirilməsi, bazarın likvidliyinin, şəffaflığının və rəqabətqabliyyətliyinin təmin edilməsi, dövlət və korporativ qiymətli kağızlar bazarında vergiqoymanın təkmilləşdirilməsi, cəmiyyətin maliyyə savadlılığının yüksəldilməsi, ev təsərrüfatlarının əmanətçilikdən əmanətçi-investisiya modelli davranışa keçidinin sürətləndirilməsi, bazarın investisiya funksiyasının gücləndirilməsi, peşəkar fəaliyyətin yeni növlərinin, yeni bazar iştirakçılarının və maliyyə vasitələrinin dövriyəyə buraxılmasının təmin edilməsi, fond bazarının səmərəliliyinin yüksəldilməsi, dayanıqlı

investisiyanın stimullaşdırılması, BMT-nin ”dayanıqlı fond birjaları” təşəbbüs qrupunda davamlı olaraq fəal iştirak edilməsi və s. zəruridir

**NƏTİCƏ**

Qiymətli kağızlar bazarının genişlənməsi və inkişaf etməsi isə ölkədə əlverişli investisiya mühitinin yaranmasına və tuxarıda göstərilənlərin daha da tez gerçəkləşməsinə səbəb olur.

Bu bazarın mövcudluğu dövlət üçün də xüsusi əhəmiyyət kəsb edir. Bu, əsasən dövlət borcu ilə əlaqədar yaranan münasibətləri əhatə edir. Dövlətin öz funksiyalarını yerinə yetirməsi zamanı büdcə vəsaitləri və digər vasitələr kifayət etmədikdə dövlət dövriyyəyə müxtəlif qiymətli kağızlar (xəzinə vekselləri, qısamüddətli istiqrazlar və s.) buraxmaqla bu resurslara olan tələbatını ödəyir [4,5].

Bunlardan əlavə qeyd etmək lazımdır ki, qiymətli kağızlar bazarındakı vəziyyəti öyrənməklə hər hansı bir ölkədə istehsal-iqtisadi şəritin nə vəziyyətdə olduğunu müəyyən etmək olar. Məsələn, fond bazarında dövriyyədə olan səhmlərin və onlarla aparılan əməliyyatların həcmini, bazarda onlara formalaşan qiyməti və onlara olan tələbatı öyrənməklə ölkədə fəaliyyət göstərən səhmdar cəmiyyətlərinin mənfəətliliyinə və beləliklə də ölkədə mövcud olan iqtisadi şəraitə qiymət vermək olar.

Qiymətli kağızlar bazarının əməliyyat infrastrukturunun tam avtomatlaşdırılması, klirinq sistemini mərkəzləşdirilməsi və elektron ödəniş sisteminə tam inteqrasiyasının təmin olunması məqsədilə QKDK sədrinin müvafiq əmri ilə işçi qrupu yaradılmış və tədbirlər planı hazırlanmışdır. Qeyd olunan çərçivədə qiymətli kağızlarla hesablaşma-klirinq əməliyyatları zamanı vəsaitlərin öncədən bloklaşdırılması təcrübəsinin məhdudlaşdrılması və əməliyyatların birbaşa emal prinsipi əsasında həyata keçirilməsinin təmin edilməsi məqsədilə cari ilin sentyabr ayından mütəşəkkil bazarda bağlanmış əqdlər üzrə hesablaşmaların yeni üslubda aparılmasına start verilmişdir. Yeni hesablaşma sisteminə əsasən dövlət qiymətli kağızları ilə ilkin bazar əqdləri və REPO əməliyyatları ticarətdən əvvəl qiymətli kağızların və pul vəsaitlərin bloklaşdırılması (T ticarət günü), korporativ qiymətli kağızlarla ilkin bazar və təkrar bazar əqdləri üzrə qiymətli kağızların ticarətdən əvvəl bloklaşdırmaqla, qiymətli kağızların və pul vəsaitlərinin əlavə bir iş günü zamanında (T+1 ticarət günü) təchiz edilməsinə imkan yaradır. Tədbirlər planının icrasınn növbəti mərhələsi olaraq 2015-ci il ərzində qiymətli kağızlarla əməliyyatların nağdsızlaşdırılması, birjadankənar qiymətli kağızlar bazarının əməliyyat-hesablaşma sistemlərinin klirinq sisteminə tam inteqrasiyası və hesablaşma banklarının fəaliyyətinin təmin olunması nəzərdə tutulur.

Hesabat dövrü Bakı Fond Birjasının ticarət platformasında likvidliyi təmin olunmuş korporativ istiqrazlar və Azərbaycan İpoteka Fondunun istiqrazlarının repo predmeti olaraq istifadəsi üçün zəruri texniki və hüquqi baza yaradılmış və cari ildən korporativ qiymətli kağızlarla repo əməliyyatları həyata keçirilməsinə start verilmişdir.

**ƏDƏBİYYAT SİYAHISI**

1.Abbasov A.H. “Qiymətli kağızlar və onlarla əməliyyatlar”. Bakı 2007.

2.“2011-2020-ci illərdə Azərbaycan Respublikasında qiymətli kağızlar bazarının inkişafı” Dövlət Proqramı, 16 may 2011-ci il.

3.www.bse.az

4.Рынок ценных бумаг: учеб.- метод. пособие «Экономика» профиль «Финансы и кредит»/ И.В. Ворошилова, Л.Ю. Питерская, В.В.Бут [и др.].-Краснодар: КубГАУ, 2018, 123 с .

5.Рынок ценных бумаг : учебник для академического бакалавриата / Н. И. Берзон [и др.]; под общей редакцией Н.И.Берзона. 4-е изд., перераб. и доп. Москва: Издательство Юрайт, 2016, 443 с.

# RİSKİN SƏVİYYƏSİNƏ GÖRƏ QİYMƏTLİ KAĞIZLARIN MÖVQELƏRİ

**CAHAN QULİYEVA**
Azərbaycan Memarlıq və İnşaat Universiteti, müəllim
cahan.quliyeva0901@mail.ru
ORCİD İD: 0000-0002-3568-1788
BAKI, AZƏRBAYCAN

**XÜLASƏ**

Qiymətli kağızlar, sahiblərinə müəyyən maliyyə hüquqları və mülkiyyət hüquqları verən və əsasən alınıb satıla bilən sənədlərdir. Bunlar şirkətlərin mülkiyyət paylarını (səhmlər), borc öhdəliklərini (istiqrazlar) və digər maliyyə alətlərini əks etdirə bilər. Qiymətli kağızlar, investorların kapital bazarlarında iştirak etmələrinə imkan verərək, şirkətlərin və dövlətlərin maliyyələşmə vasitəsidir. Bu kağızlar həmçinin likvidlikləri və qiymət dəyişikliyi ilə mənfəət əldə etmə potensialı ilə məşhurdur. Qiymətli kağızlar, onların satışı və alışı vasitəsilə kapital bazarlarında mühüm bir rol oynayır, iqtisadi inkişaf və təşəbbüskarlığın maliyyələşdirilməsinə kömək edir. Qiymətli kağızlar, onları satın alan investorlara gəlir gətirir və maliyyə bazarlarında asanlıqla alınıb satıla bilər. Qiymətli kağızların mövqelərinin bazar iqtisadiyyatındakı əhəmiyyəti, onların risk səviyyəsinə görə fərqlənir. Qiymətli kağızlar investorların portfelinin diversifikasiyasında mühüm rol oynayır və riskin idarə edilməsində əsas vasitələrdən biridir. Aşağı riskli qiymətli kağızlar adətən, dövlət tərəfindən verilən və ya korporativ istiqrazlar kimi sabit gəlirli investisiya alətləridir. Bu növ alətlər investorlara nisbətən sabit gəlir vəd edir və bazarın qeyri-müəyyənliyinə qarşı daha az həssasdır. Pensiya fondları və konservativ investorlar üçün əlverişlidir, çünki onlar portfeli mümkün qədər sabit saxlamağa çalışır. Yüksək riskli qiymətli kağızlar adətən, səhmlər və ya bəzi derivativlər kimi dəyişən gəlirli investisiya alətləridir. Bu alətlər yüksək qazanc potensialı təqdim etsələr də, buna müvafiq olaraq yüksək risk də daşıyırlar. Bazar dəyişikliklərindən kəskin şəkildə təsirlənə bilirlər. Riskə meylli investorlar üçün uyğundur, çünki onlar yüksək mükafat əldə etmək üçün daha çox risk götürməyə hazırdırlar. Qiymətli kağızların bazar iqtisadiyyatında bir sıra üstünlükləri var ki, bu da onları həm investorlar, həm də şirkətlər üçün rolunu artırır.

**AÇAR SÖZLƏR: investor, maliyyə, kapital, kredit, itgi, istiqraz**

**SECURITY POSITIONS BY RISK LEVEL**

**ABSTRACT**

Securities are documents that give their owners certain financial and property rights and are basically tradable. These may represent ownership shares (stocks), debt obligations (bonds) and other financial instruments of companies. Securities are a means of financing companies and governments, allowing investors to participate in capital markets. These securities are also known for their liquidity and the potential to profit from price movements. Securities, through their sale and purchase, play an important role in the capital markets, helping to finance economic development and entrepreneurship. Securities provide income to the investors who buy them and can be easily bought and sold in the financial markets. The importance of securities positions in the market economy differs according to their level of risk. Securities play an important role in diversifying investors`portfolios and are one of the main toolsi in risk management. Low-risk securities are typically fixed-income investment instruments such as government-issued or corporate bonds. These types of instruments promise investors a relatively stable return and are less sensitive to market uncertainty. It is suitable for pension funds and conervative investors as they try to keep the portfolio as stable as possible. High-risk securities are usually variable-return investment instruments, such as stocks or some derivatives. Although these instruments offer high earning potential, they also carry correspondingly high risk. They can be dramatically affected by market changes. It is suitable for risk-averse investors as they are willing to take more risks to get higher rewards. Securities have a number of advantages in the market economy, which increases their role for both investors and companies.

**KEY WORDS:** investor, finance, capital, loan, loss, bond

## GİRİŞ

Qiymətli kağızlar, iqtisadiyyatda mühüm bir yer tutan və müxtəlif maliyyə institutlarına aid edilən sənədlərdir. Bunların iqtisadi mahiyyəti, onların həm investisiya vasitəsi olması, həm də maliyyə bazarlarının səmərəliliyinin artırmasında özünü göstərir. Qiymətli kağızlar arasında hissə sənədləri (aksiyalar), borc sənədləri və derivativlər (opsiyonlar, fyuçerslər) kimi fərqli növlər mövcuddur. Qiymətli kağızlar iqtisadiyyatda mühüm rol oynayaraq, kapitalın səmərəli cəlb edilməsindən tutmuş, yatırım imkanlarının genişləndirilməsinə və maliyyə bazarlarının stabilliyinə qədər bir çox funksiyaları yerinə yetirirlər.

Qiymətli kağızlar bazarı Azərbaycan üçün önəmli bir sahədir və bu sahədə region dövlətlərlə əməkdaşlıq vacibdir. Bu əməkdaşlıq maliyyə bazarlarının təhlükəsiz və effektiv fəaliyyətini təmin etmək, təhlükəsizlik standartlarını artırmaq, məhdudlaşdırma ilə mübarizə etmək, müxtəlif təcrübələri və məlumatları paylaşmaq üçün əsaslı bir vasitədir. Bu Azərbaycanın maliyyə sistemini daha da inkişaf etdirməyə və beynəlxalq standartlara uyğunlaşdırmağa kömək edir.

Risk səviyyəsinə görə qiymətli kağızlar, investorların risk və qazanc arasında bir balans yaratmaq üçün istifadə etdikləri bir alətdir. Əsas məqsədi, investisiya portfelinin riskini diversifikasiya etməkdir və buna görə də müxtəlif maliyyə məhsullarını (sənədlər, hissələr, oblyqasiyalar və s.) daxil etməklə investisiya riskini azaltmaq və potensial qazancı artırmaqdır. [1.77]

## TƏDQİQAT METODU

Qiymətli kağızlar bazar iqtisadiyyatında çox mühüm rol oynayır. Onların aktual olmasının bir neçə səbəbi var: Qiymətli kağızlar, şirkətlərə və dövlətlərə geniş miqyaslı layihələri maliyyələşdirmək üçün lazım olan vəsaiti cəlb etməyə imkan verir. Bu, yeni iş yerlərinin yaradılmasına, texnoloji tərəqqiyə və iqtisadi inkişafa kömək edir. Fərdlər və institutlar üçün qiymətli kağızlar, kapitalın qorunması və artırılması məqsədilə müxtəlif sərmayə imkanları təklif edir. Bu, sərmayə portfellərinin diversifikasiyasına və maliyyə risklərinin azaldılmasına kömək edir. Likvidliyin təmin edilməsi ilə qiymətli kağızlar bazarı, investorlara onların sərmayələrini nisbətən asanlıqla nağd pul vəsaitinə çevirə biləcəkləri bir platforma təqdim edir. Bu likvidlik, iqtisadi sistem üçün hayati önəm daşıyır. Qiymət müəyyənləşdirilməsi vasitəsilə qiymətli kağızlar bazarı, müxtəlif iqtisadi aktivlərin adil qiymətinin müəyyənləşdirilməsinə yardım edir. Bu, sərmayə qərarlarına şəffaflıq gətirir və iqtisadi resursların daha səmərəli təyinatını təyin edir. Riskin idarə olunması ilə şirkətlər və investorlar müxtəlif riskləri (məsələn, faiz dərəcələri, valyuta kursları, və ya iqtisadi dövranın dəyişməsi riskləri) daha yaxşı idarə edə bilərlər. Qiymətli kağızlar bazarı maliyyə innovasiyaları vasitəsilə yeni maliyyə məhsullarının və strategiyalarının inkişafına zəmin yaradır. Bu innovasiyalar, daha effektiv sərmayə qərarlarının qəbul edilməsinə və maliyyə bazarlarının dərinləşdirilməsinə kömək edir. Bu səbəblər göstərir ki, qiymətli kağızlar bazar iqtisadiyyatının sağlamlığı və inkişafı üçün həlledici əhəmiyyət kəsb edir. Onlar həm maliyyə sistemini gücləndirir, həm də ümumi iqtisadi artımı dəstəkləyir. Makroiqtisadi göstəricilər və siyasət dəyişiklikləri risk səviyyələrinə təsir edə bilər, bu da qiymətli kağızların seçiminə təsir edə bilər. Məsələn, faiz dərəcələrinin artması adətən kredit riski olan qiymətli kağızların dəyərini azaldır. Nəticədə, risk səviyyəsinə görə qiymətli kağızların seçimi həm fərdi investisiya məqsədlərinə, həm də ümumi iqtisadi şəraitə uyğun olaraq məqsədyönlü və məlumatlı qərarlar tələb edir. Bu seçimlər, investisiya portfelinin ümumi performansı və dayanıqlığı üçün həlledici əhəmiyyət kəsb edir. Ümumilikdə, qiymətli kağızlar bazarı iqtisadiyyatın sağlam və dayanıqlı inkişafını təmin etmək üçün sərmayənin məhsuldar şəkildə təyinat tapmasına kömək edir. Bu bazarlar həmçinin, sərmayəçilərə, həm də dövlətlər və şirkətlər üçün vacib maliyyə resurslarına çıxış imkanı verir. [2.55]

Qiymətli kağızlar bazarında risk səviyyəsinə görə qarşıya çıxan problemlər çoxşaxəlidir və bu problemlər həm fərdi investorlar, həm də institusional investorlar üçün aktual ola bilər. Risklər arasında bazar riski, kredit riski, likvidlik riski, əməliyyat riski və daha çoxu var. Bu risklərə görə yaranan problemlərin qısaca izahı aşağıdakı kimidir: -Bazar riski: Qiymətlərin geniş bazar hərəkətləri səbəbiylə dəyişmə riskidir. Buna səbəb olan faktorlar arasında faiz dərəcələrinin dəyişməsi, valyuta dəyərlərinin dəyişikliyi, siyasi hadisələr və iqtisadi göstəricilər yer alır. İnvestorlar bu riskə məruz qalaraq, investisiya dəyərinin azalması ilə üzləşə bilərlər. -Kredit riski: Borclunun maliyyə öhdəliklərini yerinə yetirməmə riskidir. Bu, xüsusilə dövlət və korporativ obligasiyaları alarkən mühüm bir amildir. Kredit riski yüksək olan şirkətlərin və ya dövlətlərin verdiyi borclanma vasitələri adətən daha yüksək gəlir təklif edir, lakin eyni zamanda kapital itkisi riski də yüksəkdir. -Likvidlik riski: Bir aktivin, investorun az itkilərlə və tez bir zamanda nağdlaşdırma qabiliyyətinin olmaması

Qeyri-neft sektorunun inkişafı üçün vacib olan texnologiya transferini, bilik mübadiləsini və bacarıqların inkişafını asanlaşdırmaq üçün elm, sənaye və dövlət qurumları arasında əməkdaşlığı gücləndirməlidirlər.

Tədqiqat və İnkişaf investisiyalarını stimullaşdıran, əqli mülkiyyət hüquqlarını qoruyan və qeyri-neft sektorlarında innovasiyaya əsaslanan sahibkarlıq üçün əlverişli mühit yaradan tənzimləyici islahatların həyata keçirilməsi.

Qeyri-neft sektorlarında texnoloji irəliləyişlərə və məhsuldarlığın yüksəldilməsinə təkan verə bilən işçi qüvvəsi yaratmaq üçün təhsil, təlim proqramları və bacarıqların inkişafı təşəbbüsləri vasitəsilə insan kapitalına sərmayə qoymaq lazımdır (Fan, 2016).

Nəticə olaraq, elmin maliyyələşdirilməsi ilə qeyri-neft sektorunun inkişafı arasındakı əlaqə çoxşaxəlidir və innovasiyalar, texnologiya transferi, insan kapitalının inkişafı və iqtisadiyyatın diversifikasiyası əsasında formalaşır. Dayanıqlı inkişafı kataliz etmək, rəqabət qabiliyyətini artırmaq və qeyri-neft sektorlarında inklüziv inkişafı təşviq etmək üçün elm sərmayələrindən istifadə edən effektiv siyasətlərin formalaşdırılması üçün empirik sübutlarla birləşən möhkəm nəzəri anlayış vacibdir.

**Cədvəl 3: Elmin qeyri neft sahəsi kimi isbatı, gəlirlilik səviyyəsinə görə müqayisəsi**

| Aspekt | Təsvir |
|---|---|
| **Elmin qeyri-neft kimi müəyyən edilməsi** | - Biologiya, kimya, mühəndislik və s. kimi müxtəlif fənləri əhatə edir. |
| | - Qeyri-neft məhsul və xidmətləri yaratmaqla texnoloji irəliləyişlərə və innovasiyalara töhfə verir. |
| **Maliyyələşdirmə elminin nəzəri əsasları** | - İnnovasiya nəzəriyyəsi yeni məhsullar və bazarlar yaratmaq üçün R&D-yə investisiyaları dəstəkləyir. |
| | - Laboratoriyalardan sənayelərə texnologiya transferi iqtisadi artımı və diversifikasiyanı stimullaşdırır. |
| **Metodoloji yanaşmalar** | - Dövlət maliyyələşdirməsi (dövlət qrantları, subsidiyalar) fundamental tədqiqatları və əqli mülkiyyətin yaradılmasını dəstəkləyir. |
| | - Ar-Ge-yə özəl investisiyalar qeyri-neft sektorlarında kommersiyalaşma və rəqabət qabiliyyətini artırır. |
| **Mənfəətliliyin müqayisəsi** | - Neft Sektoru: Tarixən yüksək gəlirlilik, lakin qiymət dəyişkənliyinə və geosiyasi risklərə məruz qalır. |
| **Aspekt** | - Elm Sektoru: Uzunmüddətli faydalara davamlı inkişaf, azaldılmış ətraf mühitə təsir və şaxələndirilmiş risk-gəlir profili daxildir. |
| | - Dərhal gəlirlilik neftə üstünlük verə bilsə də, elm əhəmiyyətli gəlirliliyi olan yeni sənayelər üçün davamlılıq və potensial təklif edir. |

**Mənbə:** müəllif tərəfindən hazırlanmışdır

Bu cədvəl elmin qeyri-neft sektoru kimi necə təyin oluna biləcəyini, onun maliyyələşdirilməsinin nəzəri əsaslarını, maliyyələşdirməyə metodoloji yanaşmaları, neft sektoru ilə elmi əsaslı sektorlar arasında gəlirliliyin risklər baxımından müqayisəsini təqdim edir. qayıdış profilləri və uzunmüddətli təsir.

## 1. NƏTICƏ

Tədqiqatın nəticələrinə əsasən elmin maliyyələşdirilməsi ilə qeyri-neft sektorunun inkişafı arasında əlaqə haqqında mühüm nəticələr əldə edilmişdir. Bu tapıntılar elmin maliyyələşdirilməsinin qeyri-neft sektorunda artıma təsirinin müəyyən edilməsində əsas amilləri müəyyən etməyə kömək etmişdir. O, həmçinin elmin maliyyələşdirilməsi səviyyələri ilə iqtisadi göstəricilər arasındakı əlaqəni kəmiyyətcə qiymətləndirdi.

Tədqiqatın faydalarına siyasətçilərə elmin maliyyələşdirilməsi ilə bağlı qərarlar qəbul edərkən əsaslandırılmış qərarlar qəbul etmək imkanı vermək və sənaye liderlərinə öz innovasiyalarını, məhsuldarlığını və rəqabət qabiliyyətini artırmaq üçün tapıntıların təqdim etdiyi anlayışlar daxildir. O, həmçinin elmin maliyyələşdirilməsi və iqtisadi artım arasında əlaqəni anlamaqda akademik və tədqiqat cəmiyyətinin biliklərinə töhfə verdiyi müəyyən edilmişdir.

Tədqiqatın səmərəliliyi baxımından, istifadə olunan tədqiqat metodlarının əsaslılığı və etibarlılığı, vaxt və resurslardan istifadənin səmərəliliyi, tədqiqatın aşkar edilmiş boşluqları necə aradan qaldırdığı və sahəyə mənalı töhfə verməsi də qiymətləndirilmişdir.

Nəticə etibarı ilə bu tədqiqatın nəticələri mövcud ədəbiyyatla müqayisə edildikdə oxşar və fərqli cəhətlər üzə çıxarılmış, yeni fikirlər əldə edilmişdir. Bu tapıntıların bu sahədə gələcək tədqiqatlar və tədqiqatlar üçün əsas ola biləcəyi gözlənilir.

**ƏDƏBİYYAT**


1. Məmmədov S. (2022). Rəqəmsal maliyyə. Ali məktəblər üçün dərs vəsaiti, Bak - Gəncə, 804 s.
2. Məmmdov S. (2021). Rəqəmsal keçid və elmi texnoloji inkişafın sürətləndiirlməsi zəruriliyi. Bakı, 408 s.
3. 2024-cü ildə elmin maliyyələşdirilməsi üçün 228,8 milyon manat nəzərdə tutulub. (2024). URL: https://apa.az/maliyye/2024-cu-ilde-elmin-maliyyelesdirilmesi-ucun-2288-milyon-manat-nezerde-tutulub-793408
4. Chen, T. (2011). The research based on BP neural network for the evaluation index system of science and technology projects funding. In 2011 2nd International Conference on Artificial Intelligence, Management Science and Electronic Commerce (AIMSEC) (pp. 1-4). IEEE.
5. Douglas, E., Ilumoka, A., & Watson, H. (2017). National Science Foundation Engineering Education Funding: Tips for Appropriate Program Selection & Competitive Proposal Preparation. In 2020 IEEE Frontiers in Education Conference (FIE). IEEE.
6. Fan, D., Song, Z., & Fang, L. (2016). Analysis of the effect of government funds, enterprise funds in industry innovation of high-tech industry — A view based on factor input. In 2016 International Conference on Management Science and Engineering (ICMSE). IEEE.
7. Yuzi, A., Samsuddin, S., Shair, S. N., & Hazny, M. H. (2012). Performance evaluation of Islamic mutual funds in Malaysia based on asset portfolio. In 2012 International Conference on Statistics in Science, Business and Engineering (ICSSBE). IEEE.


# COVID-19 PANDEMİYASININ NEFT BAZARINA TƏSİRİ


**VAQIF BAYRAMOV**
Bakı Mühəndislik Universiteti
İqtisadiyyat və İdarəetmə/Maliyyə Menecmenti
*Vbayramov3@std.beu.edu.az*
BAKI, AZƏRBAYCAN



**XÜLASƏ**

Məqalə neft bazarında COVID-19 koronavirus pandemiyasının yayılmasına həsr olunub. COVID-19 pandemiyası təkcə qlobal iqtisadiyyata deyil, həm də dünyada, o cümlədən Azərbaycanda neft bazarının dinamikasına öz təsirini göstərib. Koronavirus böhranının ən böyük təsirini neft sənayesi hiss edib. Heç kimin proqnozlaşdıra bilmədiyi vəziyyətə tez uyğunlaşaraq yeni reallığın şərtlərinə uyğunlaşmalı oldum. Neft bazarı əsas qurbanlardan biri oldu - 2020-ci ilin ilk beş həftəsində neft qiymətləri davamlı olaraq aşağı düşdü. Neft bazarının liderləri COVID-19 yeni koronavirus infeksiyasının yayılmasının qarşısını almaq üçün məhdudlaşdırıcı tədbirlərin mənfi təsiri ilə bağlı əhəmiyyətli itkilərə məruz qalıblar. Tələbatın fəlakətli azalması səbəbindən şirkətlər neft hasilatını və neft məhsullarının istehsalını əhəmiyyətli dərəcədə azaltmalı oldular. COVID-19-un yayılması səbəbindən neftə tələbatın azalması və onunla mübarizə üçün məhdudlaşdırıcı tədbirlərin tətbiqi, istehsalçılar arasında amansız qiymət müharibəsi ilə birlikdə neft bazarları üçün dəhşətli nəticələrə gətirib çıxarıb. 2020-ci ilin mart ayında neft qiymətlərinin qəfil enməsi, artıq koronavirusun sürətlə yayılması və onun nəticələri ilə sarsılan maliyyə bazarlarını şoka saldı. Neftin qiymətinə iqtisadi

artımın virus səbəb olduğu azalma və OPEC+ ölkələrindən neft təklifinin artması səbəbindən tələbin azalması mənfi təsir göstərib. COVID-19-un biznes əməliyyatlarına birbaşa təsirindən əlavə, sənaye, ilk növbədə, dünyada karantin tədbirləri səbəbindən ən həssas olan nəqliyyat sektorundan (avtomobil və hava nəqliyyatı) tələbatın kəskin azalmasından əziyyət çəkdi.

**AÇAR SÖZLƏR: OPEC+, neft, COVID-19, koronavirus, pandemiya.**

**SUMMARY**

The article is devoted to the spread of the COVID-19 coronavirus pandemic in the oil market. The COVID-19 pandemic has had an impact not only on the global economy, but also on the dynamics of the oil market in the world, including in Azerbaijan. The biggest impact of the coronavirus crisis was felt by the oil industry. I had to adapt to the conditions of the new reality, quickly adapting to the situation that no one could have predicted. The oil market was one of the main victims - oil prices fell continuously in the first five weeks of 2020. The leaders of the oil market suffered significant losses due to the negative impact of restrictive measures to prevent the spread of the new coronavirus infection, COVID-19. Due to the catastrophic decline in demand, companies had to significantly reduce oil production and production of petroleum products. The drop in demand for oil due to the spread of COVID-19 and the introduction of restrictive measures to combat it, combined with a relentless price war among producers, have led to dire consequences for oil markets. The sudden drop in oil prices in March 2020 shocked financial markets already shaken by the rapid spread of the coronavirus and its consequences. The price of oil has been negatively affected by the decrease in economic growth caused by the virus and the decrease in demand due to the increase in oil supply from OPEC+ countries. In addition to the direct impact of COVID-19 on business operations, the industry has suffered from a sharp drop in demand, primarily from the most vulnerable transportation sector (automotive and air transport) due to worldwide quarantine measures.

**KEY WORDS: OPEC+, oil, COVID-19, coronavirus, pandemic.**

**GIRIŞ**

Məqalə neft bazarında COVID-19 koronavirus pandemiyasının yayılmasına həsr olunub. COVID-19 pandemiyası təkcə qlobal iqtisadiyyata deyil, həm də dünyada, o cümlədən Azərbaycanda neft bazarının dinamikasına öz təsirini göstərib. Koronavirus böhranının ən böyük təsirini neft sənayesi hiss edib. Heç kimin proqnozlaşdıra bilmədiyi vəziyyətə tez uyğunlaşaraq yeni reallığın şərtlərinə uyğunlaşmalı oldum. Neft bazarı əsas qurbanlardan biri oldu - 2020-ci ilin ilk beş həftəsində neft qiymətləri davamlı olaraq aşağı düşdü. Neft bazarının liderləri COVID-19 yeni koronavirus infeksiyasının yayılmasının qarşısını almaq üçün məhdudlaşdırıcı tədbirlərin mənfi təsiri ilə bağlı əhəmiyyətli itkilərə məruz qalıblar. Tələbatın fəlakətli azalması səbəbindən şirkətlər neft hasilatını və neft məhsullarının istehsalını əhəmiyyətli dərəcədə azaltmalı oldular [1, 59-61 ss.].

**TƏDQIQAT METODU**

COVID-19-un yayılması səbəbindən neftə tələbatın azalması və onunla mübarizə üçün məhdudlaşdırıcı tədbirlərin tətbiqi, istehsalçılar arasında amansız qiymət müharibəsi ilə birlikdə neft bazarları üçün dəhşətli nəticələrə gətirib çıxarıb. 2020-ci ilin mart ayında neft qiymətlərinin qəfil enməsi, artıq koronavirusun sürətlə yayılması və onun nəticələri ilə sarsılan maliyyə bazarlarını şoka saldı. Neftin qiymətinə iqtisadi artımın virus səbəb olduğu azalma və OPEC+ ölkələrindən neft təklifinin artması səbəbindən tələbin azalması mənfi təsir göstərib[3, 143-144 ss.]. COVID-19-un biznes əməliyyatlarına birbaşa təsirindən əlavə, sənaye, ilk növbədə, dünyada karantin tədbirləri səbəbindən ən həssas olan nəqliyyat sektorundan (avtomobil və hava nəqliyyatı) tələbatın kəskin azalmasından əziyyət çəkdi.

Bu arada IHS Markit analitik şirkəti qlobal miqyasda azalma proqnozlaşdırıb 2020-ci ilin birinci rübündə neft tələbatı gündəlik 3,8 milyon barel, əsasən Çində iqtisadi fəaliyyətin dayanması, eləcə də ilk illik daralma səbəbiylə 2007-2008 ilin maliyyə böhranından sonra xam neft tələbatı[2, 11-13 ss.].

Baş verən pandemiya bazar iştirakçılarının gözləntilərinə ən həssas olan neft qiymətlərinin dinamikasına təsir edib. Koronavirusun tədricən yayılması və karantin tədbirlərinin tətbiqi 2020-ci ilin aprel ayında qiymətlərin rekord səviyyədə aşağı düşməsinə səbəb olub. [4, 160-163 ss.]

2020-ci ilin iyun ayının əvvəlinə Brent markalı neftin qiyməti bir qədər bərpa olunaraq 40 dollar/barel səviyyəsinə yüksəldi.COVID-19 pandemiyası artıq qlobal iqtisadiyyata rekord ziyan vurub. Eyni zamanda, maye karbohidrogenlərin istehlakının azalması ÜDM-in azalmasından qat-qat

əhəmiyyətli olub. Karantin tədbirləri, təcrid və sosial uzaqlaşma dünyada neft məhsullarının əsas istehlakçısı olan nəqliyyat sektoru üçün son dərəcə mənfi amillərə çevrilib. Bu, neft məhsullarına qlobal tələbatın üçdə ikisindən çoxunu təşkil edir [5, 2-3 ss.].

Neftə tələbatın azalması epidemiyanın özü kimi Çində başlayıb və onun dinamikası digər ölkələrdə gözlənilən tələb dinamikası haqqında çox şey deyə bilərdi, lakin Çin statistikasının özəllikləri aydın nəticələr çıxarmağa imkan vermir. Rəsmi məlumatlara görə, 2020-ci ilin yanvar-mart aylarında Çində xam neft istehlakı sutkada 11,98 milyon barel təşkil edib ki, bu da 2019-cu ilin göstəricisindən 4,6% azdır. Mart ayında istehlak 2019-cu ilin mart ayı ilə müqayisədə 6,6% azalıb. ÇXR Gömrük İdarəsinin məlumatına görə, neft idxalı mart ayında 4,5% artaraq gündəlik 9,68 milyon barelə çatıb. Aprel ayında rəqəmlər artıb. Belə ki, aprel ayında Çin sutkada 13,1 milyon barel neft emal edib. xam neft, 2020-ci ilin mart ayı ilə müqayisədə 11% çoxdur. Bununla belə, 2020-ci ilin yanvar-aprel aylarında neft emalı zavodlarından neftə ümumi tələbat 2019-cu ilin eyni dövrü ilə müqayisədə 3,4% az olub [6, 11-13 ss.].

Bu arada IHS Markit analitik şirkəti qlobal miqyasda azalma proqnozlaşdırıb 2020-ci ilin birinci rübündə neft tələbatı gündəlik 3,8 milyon barel, əsasən

Çində iqtisadi fəaliyyətin dayandırılması ilə əlaqədar; eləcə də ilk illik azalma 2007-08 maliyyə böhranından sonra xam neft tələbatı.

ABŞ-da 2020-ci ilin əvvəlində neft emalı zavodlarından neftə tələbat 25% azalıb (gündə 16,9 milyon bareldən 12,9 milyon barelə qədər). Eyni zamanda, aprel ayında gündəlik 12,7 milyon barellə 1990-cı illərdən bəri ən aşağı səviyyəyə çatıb və bundan sonra cüzi bərpa başlayıb. EIA-nın proqnozlarına görə, bu il neft emalı zavodlarından orta illik neft tələbatı sutkada 1,7 milyon barel artaraq 14,9 milyon barel olub. və ya 2019-cu illə müqayisədə 11% azdır[7, 62-64 ss.].

Lakin Rusiya tədarükün azaldılması üçün OPEK ilə əməkdaşlıqdan imtina etdi. OPEC ilə 2016-cı ildən bəri saxladığı razılaşmanı faktiki olaraq dayandırdı.

Rusiya ABŞ-da şist neft hasilatının artımına inandığından çəkindi OPEC ilə heç bir razılaşmaya tərəf olmayanlar, kəsilmələrin davam etməsini tələb edəcək yaxın gələcəkdə. Aşağı qiymətlər şist sənayesinə də zərər verərdi ABŞ, bir çox şist istehsalçıları üçün qiymətləri əməliyyat xərclərinin altında qoyaraq. pozulma danışıqlar hasilatın azaldılmasına dair razılaşmanın 2.1 ilə uzadılmamasına gətirib çıxardı milyon barel/gün olub ki, bu da martın sonunda başa çatıb.

8 mart 2020-ci ildə Səudiyyə Ərəbistanı gözlənilmədən hasilatı artıracağını açıqladı xam nefti Asiyadakı alıcılara endirimlə (barrel üçün 6-8 dollar) satacaq, Danışıqların pozulmasından sonra ABŞ və Avropa. Açıqlamadan əvvəl neftin qiyməti ilin əvvəlindən 30%-dən çox, Səudiyyə Ərəbistanının açıqlamasından sonra isə daha 30% ucuzlaşıb. bir qədər sağaldı.

Dünya ehtiyatlarının üçdə ikisini qiymətləndirmək üçün istifadə edilən Brent xam nefti xam neft, 8 Mart gecəsi müharibədən bəri ən böyük enişini yaşadı Fars körfəzi 1991. Bundan əlavə, West Texas Intermediate qiyməti aşağı düşdü 2016-cı ilin fevralından bəri ən aşağı səviyyə.

Rusiya və Səudiyyə Ərəbistanı arasında qiymət müharibəsi ilə bağlı narahatlıqlar artıb ABŞ səhmlərində kəskin eniş və xüsusilə Amerika təsir etdi nefti hasilatçıları.Martın 13-də neft qiymətləri ən çox göstərdi 2008-ci ildən bəri ən böyük həftəlik eniş.

Martın 14-də Goldman Sachs analitikləri neftin üçdə birinin və ABŞ-da neft xidmət şirkətləri rəqiblər tərəfindən satın alınacaq və ya aşağı neft qiymətləri səbəbindən fəaliyyətini dayandıracaq. dövründə iflas elan edən neft şirkətləri pandemiyalar: Whiting Petroleum (1 aprel) və Diamond Offshore (27 aprel).

Cümə axşamı, aprelin 9-da OPEK, Rusiya və digər istehsalçılar şərti olaraq tarixində ən böyük neft hasilatının azaldılmasına razılıq verdi. geri çəkilmək qərarına gəldilər bazara gündəlik 10 milyon barel və ya may və iyun aylarında qlobal hasilatın %10 oldu əlavə olaraq enerji nazirləri tərəfindən dəstəklənir.

Həm dünya neft qiymətlərinin dinamikasına, həm də OPEC+ Sazişi iştirakçılarının hərəkətlərinə təsir edən mühüm amil 2020-ci ilin mart-may aylarında pandemiyanın pik dövründə toplanmış neft və neft məhsulları ehtiyatları problemi və neftin doluluğunun perspektiv təxminləridir. saxlama obyektləri.

Əvvəlcə (OPEC+G20 Sazişinin iştirakçıları tərəfindən neft hasilatının azaldılması yalnız may ayında başladığı və pandemiya ilə əlaqədar neft məhsullarına qlobal tələbatın azalmasının pik nöqtəsi apreldə baş verdiyi üçün), sonra apreldə gözlənilirdi. qlobal bazarda maye karbohidrogenlərin (LHC)

əhəmiyyətli dərəcədə artıq tədarükü ola bilərdi.bazar və anbarlarda neft və neft məhsulları ehtiyatlarının artması.

Aprel ayı ərzində bazar iştirakçılarının gözləntilərinin 2020-ci ilin ikinci rübündə daha böyük artıq təklifə doğru dəyişməsi, may ayının sonuna qədər saxlama qabiliyyətinin kritik səviyyəyə ("tutumda") çatacağına dair konsensusa gətirib çıxardı.

Bu, neft istehsalçılarına əlavə təsir göstərdi və nəticədə hasilatı azaltmaq üçün çox yüksək səviyyəli könüllü öhdəliklər yarandı.

Bununla belə, nəticədə qlobal bazar daha sabitləşdi və neft və neft məhsulları ehtiyatlarının artımı rekord göstərici olsa da, dünyada anbarların nominal tutumu təxminən 71-73% dolduruldu. , baxmayaraq ki, Avropa və Asiya-Sakit okean regionunda anbarların doldurma qabiliyyəti 85 - 87% təşkil edirdi.

Xam neft və neft məhsulları üçün ən böyük anbar tutumuna malik olan ABŞ (2019-cu ilin sentyabr ayına olan məlumata görə, Amerikada xam neft və neft məhsulları üçün əməliyyat anbarının həcmi təxminən 2,88 milyard barel idi) aprel ayında xam neft ehtiyatlarında kəskin artım nümayiş etdirdi. , və neft məhsulları - 2020-ci ilin aprel və may aylarında Bununla belə, may ayı ərzində xam neft ehtiyatları 525-535 milyon barel səviyyəsində sabitləşib.

Rusiya üçün neft bazarı konyunkturasının bu cür dəyişməsi ciddi risklər daşıyırdı.Ümumiyyətlə, 2020-ci ilin birinci rübünün nəticələrinə əsasən, Rusiya neftinin ixracı o qədər də böyük zərər görmədi. Yanacaq-energetika kompleksinin Mərkəzi Dispetçer İdarəsinin məlumatına görə, 2020-ci ilin yanvar-aprel aylarında Rusiyadan xam neft və qaz kondensatının ixracı 86,3 milyon ton təşkil edib ki, bu da 2019-cu ilin analoji göstəricisindən 1,8% azdır. Apreldə 22,2 mln. qeyri-MDB ölkələrinə ixrac edilib.ton Rusiya neft xammalı, yəni. Ötən ilin eyni ayı ilə müqayisədə ixrac 0,3% azalıb.

Həmçinin, İtaliyada aprel ayında neft məhsullarının istehlakı 2019-cu ilin aprel ayı ilə müqayisədə 45% azalaraq mart ay 2,68 milyon tona düşüb. Unione Petrolifera (UP) sənaye assosiasiyasının son məlumatları mühərrik yanacağı istehlakında kəskin azalma olduğunu göstərir, dizel istehlakı bir il əvvəllə müqayisədə 50%, benzin tələbatı 73% və təyyarə yanacağı istehlakı 92% azalıb. Böyük Britaniyada yol yanacağına tələbat martın ortalarında 65-70% azalma ilə müqayisədə aprel ayında 55-60% azalıb. İspaniyada aprelin sonunda benzinə tələbat 2019-cu ilin aprel ayı ilə müqayisədə 75% azalıb. Bu, aprelin ortalarında 81%-dən və martın sonundakı 83%-dən yalnız bir qədər irəliləyişdir.

Koronavirus pandemiyası ilə əlaqədar Azərbaycan iqtisadiyyatı ikiqat zərbə altında qaldı - ona həm neftin qiymətinin düşməsi, həm də ölkə hökumətinin tətbiq etdiyi sərt karantin tədbirləri təsir etdi.

Dünya bazarında neftin qiymətinin düşməsi Azərbaycan iqtisadiyyatına böyük təsir göstərib və koronavirusla bağlı karantin səbəbindən iqtisadiyyatın bir çox digər sahələrində: turizm, logistika və s.-də problemlər müşahidə olunub. Bu, minlərlə işçinin işsiz qalması ilə nəticələndi.

2020-ci il Azərbaycan iqtisadiyyatı üçün Azərbaycan neftinin qiymətinin iki dəfədən çox ucuzlaşması ilə başlayıb (yanvarın 7-də yerli Azeri Light markalı neftin qiyməti 71,2 dollar, martın 21-də isə artıq 26,01 dollar olub) və inyeksiya ilə davam edib. COVID-19 epidemiyası ilə əlaqədar ölkədə karantin rejimi.

Azərbaycan artıq 2014-2015-ci illərdə bir dəfə neftin qiymətinin düşməsi ilə üzləşib. Və sonra ölkənin Mərkəzi Bankı manatı devalvasiya etməli oldu, nəticədə milli valyuta yarıbayarı ucuzlaşdı. 2013-cü ildə 120 dollara çatan neftin orta qiyməti 2015-ci ilin sonunda 30-40 dollara düşüb. 2020-ci ildəki pandemiya zamanı neft qiymətlərində sıçrayış daha da sürətlə baş verdi [8, 25-28 ss.].

Azərbaycanın dövlət büdcəsinə ən çox gəliri Dövlət Neft Fondu və neft şirkətlərinin ödədiyi vergilər təşkil edir.

Dövlət Gömrük Komitəsinin məlumatına görə, 2019-cu ilin sonuna ixracın 75,45 faizi neftin payına düşüb. 2015-ci ildə neftin payı 85 faizdən çox olub.

Amma neftin payının azalması təbii qazın tədarükünün artması hesabına əldə olunduğundan, onun da qiyməti aşağı düşdüyündən Azərbaycanın neft və qazdan asılılığının qaldığını deyə bilərik.

Bundan əlavə, koronavirusa görə Azərbaycan hakimiyyəti yayda 2020-ci ilin dövlət büdcəsinin parametrlərinə yenidən baxmağa məcbur olub. Neftin baza qiyməti bir barel üçün 55 dollardan 35 dollara endirilib. Nəticədə itkilərin ödənilməsi üçün Dövlət Neft Fondundan dövlət büdcəsinə

transfertlərin həcmi 12,2 milyard manata çatdırıldı ki, bu da bir sıra vəzifələrin: makroiqtisadi, maliyyə və valyuta sabitliyinin təmin edilməsinə imkan verdi [8, 24-25 ss.].

**NƏTICƏ**

Yuxarıda deyilənlərdən belə nəticəyə gəlmək olar ki, Çin dünyanın ikinci iqtisadiyyatıdır və orada tələbatın azalması neftin qiymətinin aşağı düşməsinə səbəb olub. Virusun coğrafiyası genişləndikcə daha çox ölkə karantin altına düşməyə başladı və bu da neftə olan ehtiyacı azaltmağa davam etdi.

Əvvəllər olduğu kimi, neftin qiymətinin aşağı düşməsi ilə bir müddət əvvəl Rusiya və Azərbaycanın da daxil olduğu Neft İstehsalçıları Təşkilatına (OPEC+) üzv ölkələr təklifi azaltmaq və bununla da qiyməti artırmaq üçün hasilatı azaltmaq qərarına gəliblər.

Səudiyyə Ərəbistanı Rusiyanı bazardan sıxışdırmaq üçün hasilatı artırdığını və əlavə olaraq neft satışında endirim elan edib. Rusiya ilə Səudiyyə Ərəbistanı arasında qiymət müharibəsi faktiki olaraq başlayıb. Nəticədə neftin qiyməti daha da sürətlə ucuzlaşmağa başladı[4, 162-166 ss.].

2020-ci ilin yazında koronavirus pandemiyası və aşağı neft qiymətləri Azərbaycanın neft ixrac gəlirlərinin azalmasına səbəb olub. 11 ayda Azərbaycanın neft ixracından əldə etdiyi gəlir təqribən 9 milyard dollar təşkil edib ki, bu da bir il əvvəlkindən 36,2% azdır. Aydındır ki, hazırkı qiymətlərlə 2019-cu ilin gəlir həcminə (14,8 milyard dollar) nail olmaq mümkün olmayacaq.

Elə oldu ki, neft sənayesi koronavirusun yayılmasının nəticələrinə görə əsas qurbanlardan birinə çevrildi. Buna karantin məhdudiyyətləri səbəbindən nəqliyyat sektorundan tələbin azalması, o cümlədən neft sənayesinin həm investorların gəlirliliyi, həm də neftin qiymətinin dinamikası ilə bağlı risklər baxımından cəlbediciliyinin azalması səbəb olub. Bu vəziyyət hökumətlərə iqtisadiyyatı dəstəkləmək planlarını yenidən nəzərdən keçirməyə imkan verdi.Eyni amil neft və qaz şirkətlərini risklərin idarə edilməsini təkmilləşdirməyə və uzunmüddətli strategiyaları yenidən işləməyə məcbur etdi.

**ƏDƏBIYYAT SIYAHISI**

1. Qurbanov R.R. 2020. COVID-19 pandemiyasının Azərbaycanda insan hüquqlarına təsiri: İQTİSADİYYAT. SAĞ. CƏMİYYƏT. 5(3):58-64.

2. Golovin M. Yu. 2020. COVID-19 pandemiyasının təsir kanalları

Rusiya iqtisadiyyatı. № 5, səh. 9-23.

3. Drobot E.A., Chetyz B.A. 2020. COVID-19-un iqtisadiyyata təsiri. No 11 (50), səh. 142-145.

4. Esin P.A. 2020. Şərtlərdə qlobal bazarın inkişafi ssenarisi koronavirus böhranı.№2, səh. 158-167.

5. Scott D.S. 2020. Brent neftinin fyuçersləri artan çoxluq bazarı çaxnaşmaya bəslədikcə aşağı düşür.səh.1-5.

6. Titova A.2020. COVID-19 pandemiyasının qlobal neft bazarına təsiri. səh.10–15.

7. Panova A.Yu., Tyupin A.D. 2021. Pandemiyanın qaz və neft satışına təsiri. İqtisadi tədqiqat və inkişaf. səh.61-66.

8. Dadaşev E.R. 2020. Pandemiya (Covid-19) dünya iqtisadiyyatına təsiri və onun Azərbaycanın biznes mühiti üçün mənfi nəticələri № 9-3(65).səh.29-33.

# DÖVLƏT MALİYYƏ NƏZARƏTİNİN BAŞLICA PROBLEMLƏRİ VƏ ONLARIN ARADAN QALDIRILMASI MƏSƏLƏLƏRİ

**RƏŞAD FƏRƏCZADƏ**
Lənkəran Dövlət Universiteti
İqtisadiyyat və idarəetmə fakültəsi
*fereczade.r@mail.ru*
LƏNKƏRAN, AZƏRBAYCAN

**XÜLASƏ**

Dövlət maliyyəsinə nəzarət öz-özünə tənzimlənə bilməz. Bu prosesin müxtəlif və ciddi təsirlərə məruz qalması danılmazdır. Yarana biləcək problemləri önləmək, aradan qaldırmaq üçün iqtisadi nəzarət sistemi olmalıdır. Bu sistemin vacib komponentlərindən biri də maliyyə nəzarətidir.

Tədqiqat işinin hazırlanmasında əsas məqsəd dövlət maliyyə nəzarət sistemində mövcud problemlərin araşdırılması və onun effektivliyinin artırılması yollarını müəyyənləşdirməkdir.

Maliyyə nəzarətinin gələcək inkişafı, səmərəliliyi dövlət qanunvericilik bazasının zamanın tələbinə uyğun təkmilləşdirilməsindən bilavasitə asılıdır. Bunun üçün maliyyə nəzarəti sahəsində informasiya texnologiyalarının tətbiqini genişləndirməyə, yoxlamaların keyfiyyət göstəricilərinin artırılmasına ciddi ehtiyac vardır.

Tədqiqatın elmi-nəzəri və praktiki nəticələri dövlət maliyyə nəzarəti sisteminin təkmilləşdirilməsi və yenidən qurulması prosesində istifadə oluna bilər.

Nəticədə qanunvericilikdə nəzərədə tutulmuş işlərin düzgün prosedurlarla icrası ölkədə maliyyə şəffaflığının təmin olunması, dövlət vəsaitlərinin xərclənməsi üzərində nəzarətin genişləndirilməsi ilə yanaşı maliyyə nəzarətinin tətbiqinin vahid hüquqi və metodoloji əsaslarını, habelə dövlət maliyyə nəzarəti orqanlarının vahid sistemini və onların qarşılıqlı əlaqəsini təmin edəcəkdir.

Control of public finances cannot be self-regulated. It is undeniable that this process is subject to various and serious influences. There should be an economic control system to prevent and eliminate problems that may arise. One of the important components of this system is financial control.

The main goal in the preparation of the research work is to investigate the existing problems in the state financial control system and to determine ways to increase its effectiveness.

The future development and efficiency of financial control directly depends on the improvement of the state legislative framework in accordance with the requirements of the time. For this, there is a serious need to expand the application of information technologies in the field of financial control, to increase the quality indicators of inspections.

The scientific-theoretical and practical results of the research can be used in the process of improvement and reconstruction of the state financial control system.

As a result, the implementation of the works provided for in the legislation with the correct procedures will ensure financial transparency in the country, expansion of control over the spending of state funds, as well as uniform legal and methodological bases for the application of financial control, as well as a uniform system of state financial control bodies and their interaction.

**AÇAR SÖZLƏR Nəzarət-1, maliyyə-2, büdcə-3, dövlət-4, islahat-5, hesabat-6, resurs-7, inkişaf-8, texnologiya-9, innovasiya-10**

## GİRİŞ

Müasir iqtisadi inkişaf şəraitində maliyyə resurslarının düzgün səfərbər edilməsi, yüksək səmərəlilik və iqtisadi rifaha nail olmaq, həmçinin beynəlxalq səviyyədə ölkəmizin iqtisadi yüksəlişinin göz qabağında canlanmasını daha da perspektivləşdirmək məqsədilə maliyyə nəzarətinin rolu və əhəmiyyəti getdikcə artır.

Maliyyə nəzarəti öz-özlüyündə bütün iqtisadi subyektlər: dövlət, müəssisə və təşkilatların maliyyə fəaliyyəti üzərində icraedici və qanunverici hakimiyyət orqanlarının nəzarətidir. Bu baxımdan Azərbaycanda mükəmməl nəzarət sisteminin yaradılması və mövcud nəzarət mexanizmlərinin bazar

iqtisadiyyatının xüsusiyyətlərinə uyğunlaşdırılması dövlət quruculuğu siyasətində daim diqqət mərkəzində saxlanılan məsələlərdən biridir.

Qeyd olunmuş başlıq altında məqalənin elmi yeniliyinə müasir texnologiyaların və dövlətin təkmilləşdirmə siyasətinin başlıca addımlarının uğurlu və düzgün tətbiqi ilə müəyyən islahatlar aparılması, bunun da dövlətin maliyyə nəzarətinin təkmilləşməsi və qarşıya çıxacaq problemlərin həllində effektiv təsir göstərməsini ortaya çıxarmaqdan ibarətdir. Həmçinin bu istiqamətdə dövlət maliyyə nəzarətində qarşıya çıxacaq problemlər araşdırılmışdır. Eyni zamanda problemlərin həlli üçün təkliflər irəli sürülmüşdür.

Tədqiqat işinin nəzəri və metodoloji əsaslarını beynəlxalq təcrübəyə əsaslanan müasir dövlət maliyyəsində tətbiq olunan metodlar və Azərbaycan dövlətinin, hökumətinin normativ hüquqi sənədləri təşkil edir.

Ölkəmizdə beynəlxalq standartlara cavab verən nəzarət sisteminin qurulması istiqamətində bir çox işlər görülmüşdür. Bunlara dövlət orqanlarının onların öz səlahiyyətinə aid olmayan yoxlamalar aparmağın qadağan edilməsi və bu istiqamətdə ardıcıl şəkildə həyata keçirilən digər məqsədyönlü tədbirləri, aparılan radikal-iqtisadi islahatları, idarəetmə sisteminin təkmilləşdirilməsini və.s misal göstərmək olar.

Azərbaycanda beynəlxalq tələblərə cavab verə biləcək nəzarət sisteminin əsası qoyulmuşdur. Belə ki, cəmiyyətin demokratikliyinin meyarlarından biri kimi qiymətləndirilən və müstəqil, qərəzsiz nəzarət forması sayılan audit Azərbaycanda beynəlxalq standartlar baxımından artıq bərqərar olmuşdur və iqtisadi həyatda öz mövqeyini durmadan möhkəmləndirir. Bunun icrasını təmin etmək məqsədi ilə ölkəmizdə Azərbaycan Respublikasının Hesablama Palatası yaradılmışdır. Sədrin başçılığı ilə Hesablama Palatası aşağıda qeyd olunmuş vəzifələri yerinə yetirir:

1. İcmal büdcə xərclərinin yuxarı həddi və Azərbaycan Respublikasının Vergi Məcəlləsində nəzərdə tutulmuş güzəşt və azadolmalar da daxil olmaqla, icmal büdcənin, o cümlədən dövlət büdcəsinin və "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun 1.1.31-1-ci maddəsində nəzərdə tutulan büdcədənkənar dövlət fondlarının (təsisatlarının) büdcələrinin layihələrinə və müvafiq qanun layihələrinə rəy verir;

2. İcmal büdcənin, o cümlədən dövlət büdcəsinin və "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun 1.1.31-1-ci maddəsində nəzərdə tutulan büdcədənkənar dövlət fondlarının (təsisatlarının) icrası barədə illik hesabatlara və müvafiq qanun layihələrinə rəy verir;

3. Kənar dövlət maliyyə nəzarətinin obyektlərində aşağıdakı sahələrdə kənar dövlət maliyyə nəzarəti tədbirlərini həyata keçirir:

4. Kənar dövlət maliyyə nəzarəti tədbirlərinin nəticələri barədə Azərbaycan Respublikasının Milli Məclisinə və bu qanunda nəzərdə tutulmuş hallarda müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) məlumat verir;

5. Kənar dövlət maliyyə nəzarəti tədbirlərinin nəticələri üzrə Hesablama Palatasının kollegiyası tərəfindən qəbul edilmiş qərarlar əsasında qanunla müəyyən edilmiş müvafiq tədbirləri həyata keçirir;

6. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqandan (qurumdan) və Azərbaycan Respublikasının Milli Məclisindən daxil olan dövlət maliyyəsi sahəsini tənzimləyən normativ hüquqi aktların, o cümlədən Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin layihələrinə rəy verir;

7. Dövlət büdcəsinin icrasının təhlili ilə bağlı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) yarımillik və illik məlumat verir;

8. Öz fəaliyyətində dövlət, kommersiya, vergi, bank sirri, habelə məxfilik rejiminə riayət edir;

9. Korrupsiyaya qarşı mübarizə sahəsində qanunamüvafiq tədbirlər həyata keçirir;

10. Hüquq pozuntularına qarşı mübarizə sahəsində dövlət orqanları ilə qarşılıqlı fəaliyyət göstərir;

11. Fəaliyyəti barədə Azərbaycan Respublikasının Milli Məclisinə illik hesabat təqdim edir.

Hesablama Palatası Azərbaycan Respublikası Konstitusiyasının 92-ci maddəsinə əsasən Milli Məclis tərəfindən yaradılmışdır.

**TƏDQİQAT METODU**

"Azərbaycan Respublikası Prezidentinin İstehsal, xidmət, maliyyə-kredit fəaliyyətinə dövlət nəzarətinin qaydaya salınması və əsassız yoxlamaların qadağan edilməsi barədə 1996-cı il 17 iyun tarixli 463 nömrəli imzalanmış fərmanına əsasən istehsal, xidmət və maliyyə-kredit fəaliyyəti sahəsində əsassız yoxlamalar qadağan edilmişdir. Bu da iqtisadi subyektlərin qanuni mənafelərinin

qorunmasında mühüm rol oynamışdır. Həmçinin beynəlxalq standartlara cavab verən nəzarət mexanizmini tətbiq etmək, dövlət nəzarəti sisteminin təkmilləşdirilməsi, sahibkarlığın inkişafı, yerli və xarici iş adamlarının fəaliyyətinə əsassız müdaxilələrin qarşısının alınması, korrupsiya, rüşvətxorluq və digər vəzifədən sui-istifadə halları ilə mübarizənin gücləndirilməsi məqsədi ilə "Dövlət nəzarəti sisteminin təkmilləşdirilməsi və sahibkarlığın inkişafı sahəsində süni maneələrin aradan qaldırılması haqqında" Ulu öndər Heydər Əliyevin 1999-cu il 7 yanvar tarixli 69 nömrəli imzaladığı fərmanı iqtisadiyyatımızda demokratik prinsiplərin bərqərar olunması baxımından müstəsna əhəmiyyət kəsb etmişdir.

Ölkədə sahibkarlığın inkişafını daha da sürətləndirmək və ona mane olan əsassız müdaxilələrin qarşısını almaq məqsədi ilə Ulu öndər Heydər Əliyevin Sahibkarlığın inkişafına mane olan müdaxilələrin qarşısının alınması haqqında 2002-ci il 28 sentyabr tarixli 790 nömrəli fərmanı olmuşdur. Bu fərman özəl bölmənin hərtərəfli fəaliyyətinə mane olan bürokratik əngəllərin, qanunsuz müdaxilələrin, əsassız yoxlamaların qarşısının alınması istiqamətində irəliyə atılmış bir addım oldu. Dövlət maliyyəsinə nəzarət məqsədi ilə təsdiqlənmiş bütün bu cür qanunvericilik sənədləri maliyyə nəzarətinin ağırlıq mərkəzini dövlət büdcəsi gəlirlərinin formalaşmasına və xərclərin səmərəliliyinin yüksəldilməsinə, sahibkarlıq fəaliyyətinin inkişafına, ölkədə maliyyə nəzarətinin bazar iqtisadiyyatı şəraitinə uyğunlaşdırmağa, maliyyə nəzarətinin korrupsiya alətinə çevirən əngəllərdən azad edilməsinə yönəldilmiş tədbirlərdir.

Maliyyə nəzarəti sistemində qarşıya çıxan effektiv fəaliyyətinin əsas problemlərindən biri maliyyə-büdcə qanunvericiliyinin pozulmasına görə adekvat tədbirlərin olduqca yumşaq olmasıdır. Hesablama Palatasının sədri Vüqar Gülməmmədovun bu istiqamətdə dəfələrlə vurğuladığı məsələ məhz bununla bağlı idi. O, maliyyə-büdcə qanunvericiliyinin pozulmasına qarşı inzibati tədbirlərin gücləndirilməsini zəruri hesab edir. Buna nümunə olaraq Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsində dövlət rüsumunun düzgün tutulmaması və ya dövlət büdcəsinə vaxtında və tam ödənilməməsinə görə vəzifəli şəxslər cəmi 90,0 manatadək cərimə edilir. Halbuki, bu hadisə zamanı Qazaxıstanın İnzibati Xətalar Məcəlləsində ayrı-ayrılıqda inzibati cəza nəzərdə tutulmuşdur. Bu səbəblər baş verməsin deyə maliyyə-büdcə qanunvericiliyinin pozulmasına qarşı inzibati tədbirlər genişləndirilməli, gücləndirilməli, cərimələrin məbləği dəfələrlə artırılmalıdır.

Qarşıya qoyulmuş məsələnin həlli üçün etdiyimiz araşdırmalar və elmi təcrübələr onu göstərir ki, maliyyə idarəçiliyini bir neçə istiqamətdə dəyişdirdirmək lazım gəlir. İnformasiya texnologiyalarının maliyyə menecmentinə təsiri olaraq gündəlik maliyyə tapşırıqlarını **avtomatlaşdırmaq bacarığı olmalıdır və bu metodun özünü doğrultuğunu görmüş oluruq.**

Avtomatlaşdırma maliyyə məlumatlarını daha dəqiq və tez idarə etməyə, səhv riskini azaltmağa və səmərəliliyi artırmağa imkan verdi. Avtomatlaşdırma ilə müəssisələr real vaxt rejimində maliyyələrini idarə edə bilir, bu da maliyyə göstəricilərinə nəzarət etməyi, vaxtında qərarlar qəbul etməyi və lazım gəldikdə strategiyaları tənzimləməyi asanlaşdırır. İnformasiya texnologiyalarının maliyyə idarəçiliyinə **digər əhəmiyyətli təsir edəcək metodu məlumat (data) analitikasıdır.** Onun mövcud olması və tətbiqi bizneslərə öz maliyyə göstəriciləri haqqında məlumat əldə etməyə, tendensiyaları müəyyən etməyə və verilənlər əsasında əsaslandırılmış qərarlar qəbul etməyə imkan verir. Biz araşdırma nəticəsində bu qərara gəldik ki, məlumatların analitikası vasitəsilə müəssisələr təkmilləşdirməyə ehtiyacı olan sahələri tez müəyyən edə, lazımi dəyişikliklər edə və bu dəyişikliklərin effektivliyini ölçə bilər. Texnologiya həmçinin bizneslərə qlobal miqyasda fəaliyyət göstərməyə, əhatə dairəsini genişləndirməyə və müştəri bazasını artırmağa imkan verdi. Elektron ticarət platformalarından və onlayn ödəniş sistemlərindən istifadə bizneslərə dünyanın hər yerindən müştərilərdən ödənişləri qəbul etməyə imkan yaradıb. Texnologiyanın köməyi ilə müəssisələr daha səmərəli və effektiv fəaliyyət göstərə, maliyyə göstəricilərini yaxşılaşdıra və gəlirlərini artıra bilərlər.

**NƏTİCƏ**

Qeyd olunmuş tədbirlərin hər biri ölkənin dövlət vəsaitlərindən istifadəsinin səmərəliliyinin artırılmasına, həmçinin hesablılığın və şəffaflığın, korrupsiya ilə daha səmərəli mübarizənin, maliyyə inzibatçılığının güclənməsinə gətirib çıxarır. Həmçinin, maliyyə idarəçiliyində innovasiyalar informasiya texnologiyalarının inteqrasiyası ilə şərtlənir. Avtomatlaşdırma, məlumat analitikası və qlobal əhatə texnologiyanın maliyyə idarəçiliyinə əhəmiyyətli təsirlərindən bəziləri olmuşdur. Bizneslər təkamül etməyə davam etdikcə, texnologiya maliyyə idarəçiliyində daha da əhəmiyyətli rol oynayacaq, müəssisələrə daha səmərəli fəaliyyət göstərmək və məlumatlara əsaslanan anlayışlar

əsasında məlumatlı qərarlar qəbul etmək imkanı verəcək. Texnologiyanı mənimsəmək və ən son yeniliklərdən xəbərdar olmaq bizneslərin günümüzün sürətli rəqəmsal dünyasında rəqabətədavamlı qalması, eyni zamanda dövlət maliyyəsində qarşıya çıxa biləcək problemlərə vaxtında və effektiv nəzarət olunması çox vacib olduğu üçün bu məsələyə xüsusi diqqət yetirilməlidir.

**ƏDƏBİYYAT SİYAHISI**

1. Azərbaycan Respublikasının Konstitusiyası.
2. Hesablama Palatası haqqında Azərbaycan Respublikasının qanunu (www.e-qanun.az).
3. Azərbaycan Respublikası Prezidentinin 1996-cı il 17 iyun tarixli 463 nömrəli fərmanı.
4. Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 7 yanvar tarixli 69 nömrəli fərmanı.
5. Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 28 sentyabr tarixli 790 nömrəli fərmanı.
6. Azərbaycan Respublikası Hesablama Palatasının rəsmi saytı (www.sai.gov.az).

# DÖVLƏT VƏ BƏLƏDİYYƏ İDARƏETMƏ BÖLMƏSİ

## MİQRASİYANIN NƏZƏRİ PROBLEMLƏRİNƏ DAİR

**AQİL ƏHMƏDOV**
Azərbaycan MEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu
Azərbaycanın beynəlxalq əlaqələr tarixi şöbəsi, dosent, t.ü.f.d.,
*agilahma@gmail.com*
BAKI, AZƏRBAYCAN

**XÜLASƏ**

Dünyada baş verən qlobal proseslər tarixi köklərə söykənən miqrasiya proseslərinin aktuallığından xəbər verir. Müasir beynəlxalq münasibətlər tarixində müşahidə olunan dəyişikliklər – sosial, iqtisadi, siyasi, hərbi və təbiət hadisələri könüllü, həmçinin məcburi miqrasiyaların genişlənməsinə əlverişli şərait yaradır. Miqrasiya beynəlxalq və regional proses kimi böyük bir dövrü geridə qoysa da mövcud sahədə elmi tədqiqatlar XIX ə. sonu XX ə. əvvəllərində nəzəriyyələrin yaranması ilə başlanmışdır. Bu baxımdan mövzu olaraq, miqrasiyanın nəzəri problemləri hazırda müxtəlif sahələrdə tədqiqat aparan alimlərin diqqətini çəkməkdə davam edir. Bununla əlaqədar miqrasiyaya səbəb yaradan amillər, prosesin keçdiyi tarixi inkişaf yolu, miqrasiyanın nəzəri aspektlərinin araşdırılmasında yaxından iştirak alimlər və onların əsərləri tədqiqatın əsas məqsədləri sırasına daxil edilmişdir. Məqalənin yekununda mövzu ilə bağlı elmi yeniliklər müddəalar şəklində qeyd olunmuşdur. Miqrasiyanın nəzəri əsaslarının yekununda işin elmi əhəmiyyəti üzə çıxarılmış, praktik faydası göstərilmişdir. Elmi-tədqiqat işində miqrasiya nəzəriyyəsi sahəsində araşdırma aparan yerli və xarici alimlərin əsərlərindən istifadə olunmuş, alınan iqtibaslar təhlil olunmuşdur.

**AÇAR SÖZLƏR: Tarix, miqrasiya, nəzəriyyə.**
**KEYWORDS: History, migration, theory.**

### GİRİŞ

Miqrasiya insanın gələcək taleyinin müəyyən olunmasında mühüm rol oynadığı üçün dərindən öyrənilməsi son dərəcə zəruri olan məsələdir. Təbii prosesin bir parçası kimi qarşımıza çıxan miqrasiya geniş və çoxaspektli olub insanlar arasında sosiallaşmanın əhəmiyyətinə diqqət çəkir. Sosial hadisə kimi, yaxın və uzaq tarixdən günümüzə qədər uzanan miqrasiya nəzəri baxımdan öyrənilməyə başlandıqdan sonra onun sahələri haqqında aydın təsəvvür yaranmağa başlanmışdır.

Miqrasiya nəzəriyyəsi ilə bağlı tədqiqat aparan Avropa və Qərb alimləri prosesin beynəlxalq və regional səbəblərini müasir dövrdə də araşdırmağa davam edirlər. Əahalini hərəkəti, əmək miqrasiyası, miqrant hüquqlarının müdafiəsi, insan hüquqlarının qorunması və s. məsələlər – ictimai, sosial-iqtisadi, mədəni, siyasi, hərbi və s. aspektlərin öyrənilməsinə təkan verən amillərdir. Hər miqranta individual yanaşma mümkün olmadığı üçün tədqiqatlar ümumi araşdırmaların nəticələrinə əsasən yekdil fikrə gəlməyə imkan verir. Bəzi hallarda isə miqrasiya kimi həssas mövzularda dərin fikir ayrılıqları, məsələnin haçalanması ilə nəticələnə bilər.

Aparılan təhlillər belə qənaətə gəlməyə imkan verir ki, miqrasiya sahəsində nəzəri problemlərin öyrənilməsi hələ də aktuallığını qoruyub saxlamışdır. Elmi-nəzəri aspektlərin tədqiq olunmasında ilk miqrasiya nəzəriyyəçisi E.Ravenşteynin əhali miqrasiyasının nəzəriyyəsi ilə bağlı əsərləri incələnmişdir. Müəllifin bir əsəri tədqiqat işinə cəlb olunmuş və müqayisəli təhlil ilə lazım olan məqamlardan məqalənin gedişində istifadə olunmuşdur. Azərbaycanda miqrasiya prosesləri sahəsində siyasi elmlər üzrə ilk doktorluq işi tədqiq etmiş F.Abdullayevin əsərlərinə müraciət olunmuşdur. Müəllifin birbaşa mövzu ilə bağlı olmasa da işə bağlılığı olan çoxsaylı əsərləri araşıdırlmış və mühüm məqamlar məqaləyə əlavə olunmuşdur. F.Abdullayevin "Qərb dövlətlərinin miqrasiya geosiyasəti" mövzulu məqaləsində miqrasiya nəzəriyyəsi ilə bağlı diqqət çəkən vacib fikirlərdən yararlanılmışdır. Daha sonra azərbaycanlı politoloq E.Nəsibovun "Miqrasiyanın əsasları" adlı monoqrafiyasından

miqrasiologiya ilə bağlı nəzəri məsələlərə diqqət yetirilmiş və bəzi məqamlar tədqiqat işində təhlil olunmuşdur.

Rus tədqiqatçıları E.Boytsovanın, İ.Fyodorovanın və A.Quseynovanın ədəbiyyat siyahısında göstərilən əsərlərindən mövzuya yaxın bəzi məqamlar tədqiqat işinə cəlb olunmuşdur. Hər üç müəllif əsərlərində klassik və müasir miqrasiya nəzəriyyələrinə toxunmuş, təqdim etdiyimiz mövzunugeniş tədqiq etməsələr də məqalənin yazılmasına işıq tutmuş əsərlər kimi yüksək qiyməytləndirilir.

Gənc tədqiqatçıların sayca VIII beynəlxalq elmi konfransına təqdim olunan məqalə müasir dövrdə yeni çağırışlar edir. Miqrasiya proseslərində yaxından iştirak edən gənclərin emiqrasiya səbəblərinin araşıdırlması və üzə çıxarılmasının əhəmiyyətinə diqqət çəkir. Gənclərin əmək miqrasiyası ilə yanaşı intellektual miqrasiya (beyin köçü) proselərinə qatılması və yüskək səviyyəli mütəxəssis kimi yetişib daha çox gəlir əldə etmək kimi istəkləri çox təbii qarşılanmalıdır. Elm və texnologiya əsrində yaşayan gənc nəsillərin bu baxımdan həyatda nəyə nail ola biləcəkləri və nə istədikləri aydınlaşmış olur. Bu baxımdan, hazırlanan dövlət proqramları yüksək təhsil görmüş gənclərin geri dönüşü ilə bağlı daha çox cəlbedici olmalı və dövlətin tərəqqisində onların bilik və bacarıqlarından istifadə olunması üçün təhsilini bitirmiş gənc kadrlara daha həssas yanaşmalı və onların sosial təminatının yüksəlməsinə çalışmalıdırlar. Sadlanan məsələlər miqrasiyanın nəzəri problemlərinin öyrənilməsində aktual səslənir və əhalinin miqrasiya qədər, intellekt faktorunun ümumi proseslərin gedişinə müsbət və ya mənfi təsir gücünün qaldığını əks etdirir. Bununla əlaqədar təqdim olunan elmi-tədqiqat işinə "Miqrasiya nəzəriyyəsi: tarix və müasirlik" adlı yarımparaqraf əlavə olunmş və problemin həllində məqaləyə müəllif yanaşmasının əhəmiyyəti göstərilmişdir. Məqalənin nəticəsində alınan ümumiləşmələr elmi yeniliyə gətirib çıxarmış və maddələr halında sadlanmaqla öz əksini tapmışdır.

**TƏDQİQAT METODU**

Elmi problemin qoyuluşu onun metodoloji əsaslarından xəbər verir. Bu səbəbdən, miqrasiya proseslərinin araşdırılmasında metodologiya mühüm əhəmiyyət daşıyır. Məqalədə *miqrasiya, nəzəriyyə* və *problem* tədqiqat obyekti kimi əsas götürülmüşdür. Mövcud proseslərin nəzəri əsaslarının öyrənilməsində konkret metodlar mövzunun oxucu tərəfindən anlaşılmasına müsbət təsir göstərir. Tədqiqatın yerinə yetirilməsində ilk istifadə olunan tarixilik metodu mərhələlərin üzə çıxarılması və müəyyənləşməsində mühüm rol oynayır. Burada ikinci diqqət yetirilən metod müqayisəli təhlillə bağlıdır. Alınan faktoloji materialların paralellər aparılaraq analiz olunması analitik tədqiqatlarda əsas xətt təşkil edir. Bununla yanaşı, tədqiqat işində elmi-tənqidi metod mövzunun əhəmiyyətininin yüksəlməsinə xidmət edir. Ümumilikdə, göstərilən metodlar tədqiqatın elmi yeniliyinin meydana çıxmasına şərait yaratmaqla, problemə müasir metodoloji yanaşma tələb olunduğunu əks etdirir.

**Miqrasiya nəzəriyyəsi: tarix və müasirlik**

İnsanın yaranma tarixi qədər qədim köklərə malik olan miqrasiya ümumən geniş mahiyyət daşıyır və sosial-iqtisadi proses kimi minillikləri geridə qoyur. Beynəlxalq miqrasiya proseslərini daha yaxından anlamaq üçün onun mahiyyətini, termin olaraq nə ehtiva etdiyini, nəzəri-elmi baxımdan əsasının nə vaxt və kim tərəfindən qoyulduğunu bilmək vacibdir. Bu səbəbdən qeyd etmək lazımdır ki, "Miqrasiya" termini latın mənşəli olub – "migratio" köçmək mənasını verir. Yəni, miqrasiya insanların bir ölkədən başqa ölkəyə həmişəlik və ya uzun müddətə köçməsi mənasında işlənir.

Dünya üzrə əhali yerdəyişmələri hər zaman olduğu kimi indiki dövrdə də təbii olan, bu baxımdan forma və məzmun etibarilə zəruri, eləcə də iradələrdən asılı olmayan bir prosesə çevrilmişdir. Tarixin müəyyən dövrlərində insanların köç etmələrində əsas səbəbləri müharibələr və ərazi işğalları, məhsuldarlığa yararlı olan yeni ərazilərin və əkin torpaqlarının mənimsənilməsi zərurətləri, çay hövzələri, dəniz və göllər ətrafı münbit ərazilər, okean sahilləri, ümumiyyətlə isə əlverişli landşaft, iqlim şəraiti yaratmışdır. Yeni ərazilərin mənimsənilməsi siyasi aspektdə həmin ərazilərdə imperiyaların kolonial hakimiyyətlərinin yaranmasını zəruri etmişdir (Nəsibov, 2014). Miqrasiyanın nəzəri əsaslarının və səbəblərinin araşdırılmasında qeyd olunan məqamlara diqqət yetirilməsi mövzunun aktual olduğunu bir daha təsdiq edir. Tarixə xalqların böyük köçü kimi daxil olan miqrasiyalar əsasən işğal və müharibələrin gətirdiyi məhrumiyyətlər nəticəsində insanların hər tərəfə səpələnməsi kimi yadda qalmışdır. Bununla yanaşı kolonial siyasət miqrasiya proseslərinin öyrənilməsi və nəzəri problemlərin tədqiq olunması istiqamətində yeni məlumatların əldə olunmasına yol açır və tarixi həqiqətlərin işığında proseslər araşdırılır. Münbit ərazilərdən yerli sakinlərin məcburi

miqrasiyaya sövq edilməsi və qeyri-leqal yollarla sərhədlərin aşılması, proseslərin mənfi tendensiyalarının yaranmasına şərait yaratmışdır.

Geniş mənada miqrasiya insanların yaşayış yerini daimi və ya müvəqqəti olaraq dəyişməsi məqsədi ilə bir yerdən başqa yerə hərəkət etməsini şərtləndirən, daxili və xarici, ictimai, iqtisadi və siyasi amillərin təsiri altında baş verən sosial-iqtisadi proses hesab edilir. Miqrasiya siyasəti isə müvafiq olaraq miqrasiya proseslərinin tənzimlənməsinə yönəlmiş konkret təşkilati-hüquqi və sosial-iqtisadi tədbirlərin, eləcə də beynəlxalq miqrasiya prosesləri ilə bağlı siyasi konsepsiya və baxışların məcmusudur (Abdullayev, 2015). Göründüyü kimi miqrasiya prosesləri elmi-nəzəri baxımdan bir yox, bir neçə aspektə təhlillərə cəlb olunur. Mövcud sahədə nəzəri əsasların öyrənilməsi demokratik dövlətlərin həyata keçirdiyi siyasətin başlıca prioritetlərindən biri kimi ciddi əhəmiyyət daşıyır. Burada beynəlxalq təhlükəsizlik, həmçinin dövlətlərin ayrı-ayrılıqda milli təhlükəsizliyinin qorunmasında miqrasiyanın nəzəri problemlərinin məhz elmi baxımdan öyrənilməsi, əldə olunan müsbət nəticənin qanunvericilikdə əksini tapması kimi mühüm məqamlar yer almaqdadır. Hazırda müasir dövrdə, miqrasiya Yaxın Şərq regionunda daha çox demoqrafik problem kimi təzahür edir. Demoqrafiyadan məqsəd ümumilikdə insanların məcburi miqrasiya ilə üz-üzə qalması ilə bağlıdır. Belə mürəkkəb şəraitin yaranmasına rəvac verən əsas səbəblərdən biri, bəlkə də birincisi böyük dövlətlərin xarici siyasət kursunda yaşanan siyasi ehtiraslarla bağlıdır. Bu baxımdan, miqrasiyanın nəzəri əsaslarının öyrənilməsi və tətbiq olunması praktiki əhəmiyyətinin, keyfiyyətinin yüksəlməsinə dəstək ifadə edir.

Miqrasiyanın elmi-nəzəri əsaslarının öyrənilməsi problemi uzun əsrləri geridə qoymasa da son ikyüz ildə bununla bağlı fikirlər, elmi mübahisələr zamanı yaranmış və qloballaşmanın təsiri ilə öyrənilməsinin vacibliyi ortaya çıxmışdır. Miqrasiya sahəsində tədqiqatlar aparan alimlərin əksəriyyətinin gəldiyi qənaətə görə, miqrasiyanı elmi-nəzəri baxımdan ilk dəfə təsvir edən şəxs alman əsilli ingilis kartoqraf, coğrafiyşünas və statistik Ernst-Georq Ravenşteyn (1834-1913) olmuşdur. XIX əsrin ikinci yarısında yaşamış E.G.Ravenşteyn, hazırki dövrdə müasir miqrasiya nəzəriyyəsinin əsasını təşkil edən "əhalinin miqrasiya nəzəriyyəsi"ni hələ 1880-ci ildə elmi dövriyyəyə daxil etmişdir (Ravenstein, 1876). O, müxtəlif miqrant tipləri arasındakı münasibətləri araşdıraraq belə qənaətə gəlmişdir ki, qadınlar kişilərə nisbətən daha çox miqrasiyaya meyillidirlər, həmçinin kişilərlə münasibətdə qadınlar doğulduqları ölkəyə daha çox bağlıdırlar. Ravenşteynin yaşadığı dövr hərbi hadisələrin baş verməsi baxımından mürəkkəb bir dövrü əhatə edir. Belə həssas zamanda miqrasiya nəzəriyyəsi kimi mühüm amillər tədqiqatçının nəzərindən yayınmamış, əksinə mövzu ilə bağlı ilk əsərlər meydana çıxmağa başlamışdır. XIX əsrin II yarısından ötən üçyüz ilə yaxın dövr miqrasiya baxımından, xüsusilə mövcud sahədə tədqiqatlar sahəsində yeniliklərin yaranması və müasir dövrdə innovativ miqrasiya idarəçiliyi modelinin yaranması ilə nəticələnmişdir.

E.Ravenşteyn, əhalinin hərəkətliliyinin məntiqini təsvir edən "miqrasiya qanunlarını" müəyyənləşdirməyə çalışan ilk şəxs idi. Onun yanaşmaları miqrasiya hərəkətlərini izah edən müasir neoklassik modellərdə əks olunur. Beləliklə, Ravenşteynin 11 "Miqrasiya qanunu" və onun yanaşmaları aşağıdakı elmi yanaşmaların formalaşması üçün əsas idi: coğrafi, coğrafi amillərin təsiri ilə miqrasiyanın səbəblərini izah edən (K.Taylor, J.Becker); daha sonra sosial və iqtisadi amilləri əhatə edən (V.Clark, P.George, H.Jones); ekoloji miqrasiya tədricən nəzərə alındıqda (S.A.Stoffer, G.K.Zipf); davranış (E.Lee) və sistemli tədqiqat, indi miqrasiyanın öyrənilməsində prioritet istiqamətdir (Федорова, 2019). Rvenşteynin miqrasiya nəzəriyyəsi anlayışı hazırda bir sıra tədqiqatlarda istifadə olunan metodlar sırasına daxildir. Həmin nəzəriyyə mqrasiya ilə paralel demoqrafik proseslərin öyrənilməsindəd də faydalı olmuş, əhalinin say tərkibinin öyrənilməsi kimi mühüm məqamlarda nəzəriyyəyə müraciət olunmaqdadır. Yxarıda adları çəkilən Avropa tədqiqatçılarının əsərləri mövzu çərçivəsində elmi işlərin yazılmasında istifadə olunan mənbələr sırasında ilk yeri tutmaqdadır.

Neoklassik modellər dəfələrlə tənqid edilmişdir. Birincisi, elm adamları miqrasiya qərarlarının ümumiyyətlə fərdlər tərəfindən deyil, əsasən ailələr daxilində insanlar qrupları tərəfindən verildiyini iddia edirlər. İkincisi, bu konsepsiya miqrasiyanın ümumiyyətlə mövcud şəbəkələr daxilində və ya quraşdırılmış sistem daxilində olduğu fikri ilə sıx bağlıdır. Üçüncüsü, alimlər iddia edirlər ki, "pull and push" (cazibə və itələmə) modelləri bəzi insanların niyə köç etməyi seçdikləri paradoksu ilə qarşılaşır, tamamilə oxşar şərtlərlə qarşılaşan bir çox başqaları isə bunu etmir (Федорова, 2019). Nəzəri prosesləri dilə gətirən alimlər Fyodorovanın qeyd etdiyi məqamlara diqqət yetirməklə, fərdlər və

ailələrin miqrasiyaya münasibətinin araşdırılmasının əhəmiyyət daşıdığını əks etdirir. Burada həmçinin, şəbəkələr və ya sistem daxilində miqrasiya axınlarının tədqiqatlara cəlb olunması tarixilik və sosioloji baxımdan mühüm sahələr olduğunu göstərir. Neoklassik modellər nə qədər tənqid olunsalar da onların tədqiqatlarda öyrənilməsinə qadağa qoyulmayıb və təbii proses olan miqrasiyada bütün model və metodlardan istifadə oluna biləcəyi mümkündür.

Nəzəri baxımdan miqrasiyanın tiplərinə diqqət yetirmək lazımdır. Bunlardan: əmək miqrasiyası, leqal, qeyri-leqal, epizodik, mütəmadi, mövsümi, daimi, məcburi, intellektual, kriminal miqrasiya tiplərinə və ya növlərinə daha çox rast gəlinir. Miqrasiya dedikdə ilk ağıla gələn əmək miqrasiyası olur. İnsanlar sosial müdafiəni gücləndirmək üçün, hər cəhətdən daha əlverişli ölkələrə üz tuturlar. Son vaxtlar üzərində durulan məsələlərdən biri də leqal və ya qeyri-leqal yollarla inkişaf etmiş ölkələrə kütləvi axın edən insanlarla bağlıdır. Beyin axını kimi tanıdığımız intellektual miqrasiyaya meyillilik gənclər arasında daha çox müşühidə olunur. Mütəmadi və ya mövsümi miqrasiya isə il boyu davam edir.

Bütün sadalanan məqamlar bir daha onu göstərmiş olur ki, miqrasiya siyasətini həyata keçirən inkişaf etmiş və inkişaf etməkdə olan dövlətlər mövcud sahədə nəzəri problemlərin öyrənilməsinə ciddi əhəmiyyət verir. Bu sahədə Azərbaycan Respublikasının müsbət təcrübəsi dünya praktikasında dəyərləndirilə bilər.

Miqrasiya problemi birmənalı olaraq qiymətləndirilir. Bir tərəfdən miqrasiya müəyyən üstünlüklər daşıyır. Bir çox inkişaf etmiş ölkələrdə yerli əhali qocalır, işçi qüvvəsi çatışmazlığı yaranır, bir işçiyə düşən, pensiya yaşı olan insanların sayı artır. Bu şəraitdə yüksək ixtisaslı işçi qüvvəsinin əmək bazarına axını təhsil sistemindəki yükü azaldır və yeni işçilərin hazırlanması xərclərini aşağı salır. İxtisassız işçilər əhali üçün cəlbedici olmayan iş yerlərinin doldurulmasını təmin edirlər. Bundan əlavə, mühacirlərin işi, bir qayda olaraq, daha aşağı əmək haqqı dərəcələri ilə ödənildiyi üçün istehsal xərcləri və müvafiq olaraq qiymətlər, xüsusən tikinti, kənd təsərrüfatı və xidmət sektoru kimi əmək tələb edən sahələrdə tədricən azalır. Bir çox müəlliflərin fikrincə, əgər XX əsrin 50-60-cı illərində müxtəlif dövlətlərin əhalisinin Avropaya ciddi immiqrasiyası olmasaydı, Avropa ölkələrində əmək bazarında çox ciddi problemlər yaranardı. Bu dövlətlərdə davamlı iqtisadi artım əsasən aşağı əmək haqqı ilə razılaşan immiqrantlar sayəsində mümkün olmuşdur (Бойцова, 2016). Miqrasiya proseslərində gənc işçi qüvvəsinin təmsil olunması, araşdırmanın nəzəri problemlərinin öyrənilməsində bəzi məqamlara aydınlıq gətirir. İxtisaslı və ixtisassız miqrantlarla bağlı vəziyyət əlbətdə ki, bir qədər fərqlidir. İnkişaf etmiş dövlətlər birinci tərəfə daha çox diqqət ayırmaqla yüksəkixtisaslı kadrların ölkəyə daxil olmasına dəstək vermiş olurlar. XX əsrin əvvəllərindən miqrasiya proseslərində yaranan hərəkətlilik problemin elmi-nəzəri aspektlərinin daha yaxından öyrənilməsini zəruri edir.

Ravenşteynin yanaşması müəyyən bir məhdudiyyətə sahib olsa da, onun formalaşdırdığı miqrasiya qanunları miqrasiya nəzəriyyəsinin sonrakı inkişaf mərhələlərinə təsir göstərmişdir. Beləliklə, E. Ravenşteynin nəzəriyyəsinə əsaslanaraq, amerikalı alim Everett S. Lee miqrasiya amilləri konsepsiyasını inkişaf etdirdi. 1966-cı ildə "Miqrasiya nəzəriyyəsi" məqaləsində miqrantların cazibə və itələmə amillərinə diqqət yetirərək Ravenşteyn nəzəriyyəsini yenidən formalaşdırdı. Lee, əhalinin miqrasiyasına həmişə iki kateqoriyalı amillərin – müsbət və mənfi amillərin təsir etdiyini, əksinə insanların miqrasiya istəklərinin həyata keçirilməsinə mane ola biləcəyini və ya stimullaşdıracağını düşünürdü (Гусейнова, 2019). Hər iki mühüm amillər miqrasiyanın nəzəri əsaslarının yaranması və formalaşmasına, müasir dövrdə yenidən qurulmasına pozitiv təsir göstərir. Ravenşteyn nəzəriyyəsinin üzərindən ötən dövr bir daha onu göstərir ki, nəzəriyyələr əsas elmi yeniliklərə gətirib çıxarırı, bu isə öz növbəsində müasir dövrdə innovasiyalı miqrasiya idarəçiliyinin yaranması ilə nəticələnir. Necə ki, biz bunu Azərbaycan Respublikasının qısa zaman ərzində miqrasiya idarəçiliyi sahəsində mütərəqqi təcrübəyə əsaslanan sistem qurmasında görə bilirik. Bu gün Azərbaycanda daxili və xarici miqrasiya prosesləri qanunvericilik ilə yüksək səviyyədə tənzimlənir və miqrant hüquqlarının müdafiəsi sahəsində respublikanın müsbət təcrübəsi qonşu və digər dövlətlər tərəfindən öyrənilə bilər.

Aparılan təhlillər və göstərilən faktoloji materiallar tədqiqatın yekununda elmi nəticəyə gəlməyə əsas verir və bununla bağlı aşağıdakı konkret nəticə təsbit olunmuşdur

**NƏTİCƏ**

Tarixin müxtəlif mərhələlərində inkişaf edən miqrasiya prosesləri hazırda nəzəri baxımdan diqqət çəkməyə davam edir. Mövcud sahədə aparılan tədqiqat mövzunun nəticə hissəsində elmi yeniliyin hasil olmasına əsas yaradır.

Tədqiqat işində aparılan təhlillər, irəli sürülən tövsiyə və təkliflər, bütün müsbət məqamlar ümumiləşdirərək aşağıda göstərildiyi kimi konkret müddəalarla izah olunmuşdur;

- Bütün zamanlarda miqrasiya prosesləri davam etmiş, müasir dövrdə yeni və müasir yanaşmalar mövzunu aktuallaşdırmışdır;
- İnsanların təbii yerdəyişməsi könüllü miqrasiya axınlarının yaranmasına gətirib çıxarır;
- Bununla yanaşı leqal olmayan, kortəbii və məcburi miqrasiyaların kütləviləşməsi miqrant qəbul edən dövlətləri sərt qərarlar almağa vadar edir;
- Əhalinin nəzəri miqrasiya proseslərində iştirakının öyrənilməsi mövzunun mahiyyətinin açılması baxımından az əhəmiyyət daşımır;
- Miqrasiyanın elmi-nəzəri əsaslarının hazırlanması praktika üçün böyük stimul təşkil etməklə, yarana biləcək problemlərin qarşısının alınmasında effektiv addım sayılır;
- Miqrasiya nəzəriyyələrinin hazırlanmasında regional və beynəlxalq beyin mərkəzlərinin və ya araşdırma qruplarının fəaliyyəti, hər il statistik göstəricilərdə inkişaf və ya əksinə azalma müşahidə olunduğunu deməyə əsas veriri;
- Beynəlxalq hesabatalar nəzəriyyədən praktikaya keçid etməklə, dünyada baş verən emiqrasiya və immiqrasiyaların yayılma səbəblərinin bilinməsinə yardım edir.
- BMT-nin Aİ-nin və Beynəlxalq Miqrasiya Təşkilatının fəaliyyətində mövcud istiqamət mühüm əhəmiyyəti ilə seçilir;
- Miqrasiya nəzəriyyələrinin yazılmasında istifadə olunan tarixi, siyasi və sosioloji faktorlar ümumi nəticəyə gəlmək baxımından diqqət çəkir və məsələyə müasir yanaşmanın vacibliyini göstərir;
- Miqrasiya nəzəriyyələrinin yayılmasında və fikir mübadiləsinin aparılmasında kütləvi inforrmasiya vasitələri də yaxından iştirak edir;
- Miqrasiya proseslərinin tədqiqində nəzəriyyələrin öyrənilməsi, miqrasiologiyanın fəaliyyətini müzakirə obyektinə çevirir;
- Nəzəriyyələr miqrasiyanın coğrafi və geosiyasi aspektlərinin XXI əsrdə daha çox aktual olduğunu təsdiq edir;
- Alınan elmi yenilik mövzunun gələcək tədqiqat istiqamətlərinin yaranmasına müsbət təsir göstərir.

**ƏDƏBİYYAT SİYAHISI**

1. Abdullayev, F. N. (2015). Qərb dövlətlərinin miqrasiya geosiyasəti. “Strateji təhlil”. Azərbaycan Respublikasının daxili və xarici siyasətinə, beynəlxalq münasibətlərə dair analitik jurnal. № 2(13), 125-145.

2. Nəsibov E. M. (2014). Miqrasiyanın əsasları. Miqrasiologiya. Miqrasiya prosesləri. Dünya miqrasiya mərkəzləri. I Kitab. Bakı, Elm və Təhsil, 240.

3. Ravenstein, E. (1876). The Birthplace of the People and the Laws of Migration. “The Geographical Magazine”. № 3, 173-177.

4. Бойцова, Е. Ю., Вощикова Н. В. (2016). Трудовая миграция: от теории к практике. Теория и практика общественного развития. № 4, 52-55.

5. Гусейнова, А. И., Козлова, Е. И. (2019). Классические и современные теории миграции. Инновационная экономика: перспективы развития и совершенствования. № 2(36), 202-209.

6. Федорова, И. О. (2019). Концептуальное развитие теории миграции: ассимиляция, транснационализм. Социология и право. № 4 (46), 46-51.

# AZƏRBAYCANDA MIQRASIYA TRENDLƏRI

**LAMIYƏ ƏLIYEVA**
Bakı Mühəndislik Universiteti
İqtisadiyyat/Makroiqtisadi siyasət
*Leliyeva12@std.beu.edu.az*
BAKI, AZƏRBAYCAN

**XÜLASƏ**

Tədqiqat işinin əsas məqasədi Azərbaycanın miqrasiya trendlərini təhlil etməkdən ibarətdir. Qloballaşan dünyada miqrasiya və onun təsirləri qaçınılmaz hal olaraq hesab olunur və bu səbəblədir ki, son zamanlarda miqrasiya məsələlərinin tədqiqi xüsusilə əhəmiyyətlidir. Digər tərəfdən, miqrasiyanın beynəlxlaq səviyyədə təhlili bu sahənin çoxistiqamətli tədqiqat sahəsi kimi inkişafına təkan vermişdir. Tədqiqat işində daimi yaşamaq məqsədi ilə Azərbaycana gələn və Azərbaycandan gedənlər üzrə statistik göstəricilər əsas götürülmüş, ümumi göstəricilər MDB ölkələrinə gedən və MDB ölkələrindən gələn miqrantların göstəriciləri ilə müqayisə edilmişdir. Azərbaycanın miqrasiya göstəricilərinə təsir edən əsas faktorlar kimi ötən əsrin 90-cı illərində olan müharibə şəraiti, iqtisadi vəziyyət, təhsil, COVİD-19 pandemiyası qeyd olunmuşdur. Miqrasiya göstəricilərinin çoxistiqamətli təhlili onun siyasi, iqtisadi, sosial, səhiyyə, əmək bazarı, təhsil və s. aspektləri ilə sıx şəkildə əlaqəlidir. Sözügedən sahələrdə veriləcək qərarlara təsir gücünü müəyyənləşdirmək, müxtəlif ölkələr üzrə miqrant axınının xüsusiyyətlərini xarakterizə etmək olduqca önəmlidir.

**AÇAR SÖZLƏR: miqrasiya, miqrant, dinamika**
**KEY WORDS: Migration, migrant, dynamics**

## GIRIŞ

Müasir beynəlxalq miqrasiya ümumiyyətlə ölkələr arasında artan sosial-iqtisadi fərqlər və müəyyən ölkələrdə qazanclı məşğulluğun, layiqli işin, insan təhlükəsizliyinin və fərdi azadlıqların olmaması ilə izah edilə bilər [3].

Azərbaycandan, Azərbaycana və ölkə daxilində miqrasiya olmaqla 3 istiqamətli miqrasiya axını digər ölkələrdə olduğu kimi Azərbaycanın yaxın siyasi və iqtisadi tarixində baş verən prosesləri və onun nəticələrini özündə cəmləşdirir. Miqrasiya məsələləri və onunla bağlı qərarlar siyasi və humanitar aspektli hallardan daha çox iqtisadi və sosial yönümlü fəaliyyətlər planı şəklində idarə olunur [2].

Daxili miqrasiya və Azərbaycandan gedən emiqrantların miqrasiya səbəbləri arasında təhsil və əmək fəliyyəti xüsusilə ön plandadır və əksər ölkələrdə bu mənada oxşar tendensiya müşahidə olunur.

Diqqət çəkən əsas məqam ondan ibarətdir ki, daimi yaşayış üçün ölkədən gedən və ölkəyə gələnlərin dinamikası ilə MBD ölkələrinə üz tutanların və MBD ölkələrindən gələnlərin göstəriciləri arasında paralellik mövcuddur.

## TƏDQIQAT METODU

Bu tədqiqat işində miqrasiya trendlərini əks etdirən göstəricilər üzrə statistiki məlumatlar itifadə olunmuşdur. 1990-2022-ci illər üzrə daimi yaşayış məqsədilə Azərbaycana gələn, Azərbaycandan gedən miqrantların göstəriciləri göstərilmiş və göstəricilərin müxtəlif kateqoriyalar üzrə dəyişməsi əks etdirilmişdir. Sözügedən kateqoriyalara daimi yaşayış üçün Azərbaycandan gedənlər, daimi yaşayış üçün Azərbaycana gələnlər, daimi yaşayış üçün Azərbaycandan MDB ölkələrinə gedənlər və MDB ölkələrindən gələnlər, eləcə də miqrantların yaş-cins bölgüsü daxildir.

**Cədvəl 1.** Daimi yaşayış üçün Azərbaycana gələn və Azərbaycandan gedənlər: 1990-2022-ci illər

| İllər | Daimi yaşayış üçün Azərbaycana gələnlər | Daimi yaşayış üçün Azərbaycandan gedənlər | MDB ölkələrindən daimi yaşayış üçün gələnlər | MDB ölkələrinə daimi yaşayış üçün gedənlər |
|---|---|---|---|---|
| **1990** | 84279 | 137900 | 49197 | 97333 |
| **1991** | 66300 | 106399 | 39837 | 64962 |
| **1992** | 35705 | 49900 | 21579 | 42133 |
| **1993** | 16250 | 28500 | 11521 | 23189 |
| **1994** | 8629 | 19601 | 6197 | 16532 |
| **1995** | 6222 | 16033 | 4303 | 12849 |
| **1996** | 5781 | 13151 | 4303 | 10535 |
| **1997** | 7528 | 15703 | 5531 | 14161 |
| **1998** | 5404 | 10498 | 4053 | 9883 |
| **1999** | 4806 | 9142 | 3809 | 8392 |
| **2000** | 4361 | 9947 | 3540 | 9378 |
| **2001** | 2574 | 7288 | 2240 | 6951 |
| **2002** | 1257 | 4320 | 1051 | 4187 |
| **2003** | 2500 | 3754 | 2244 | 3623 |
| **2004** | 2407 | 2800 | 2028 | 2670 |
| **2005** | 2013 | 2906 | 1565 | 2849 |
| **2006** | 2232 | 2644 | 1956 | 2598 |
| **2007** | 1954 | 3083 | 1749 | 3025 |
| **2008** | 3597 | 2530 | 2781 | 2445 |
| **2009** | 2292 | 1373 | 2155 | 1335 |
| **2010** | 2228 | 799 | 2166 | 755 |
| **2011** | 2181 | 484 | 2111 | 429 |
| **2012** | 2172 | 226 | 2134 | 205 |
| **2013** | 3129 | 781 | 1668 | 651 |
| **2014** | 1859 | 795 | 926 | 652 |
| **2015** | 2649 | 1557 | 1336 | 1394 |
| **2016** | 3233 | 1711 | 1493 | 1474 |
| **2017** | 3073 | 1901 | 1642 | 1664 |
| **2018** | 3220 | 1580 | 1659 | 1366 |
| **2019** | 2042 | 1654 | 911 | 1426 |
| **2020** | 1669 | 568 | 735 | 465 |
| **2021** | 2397 | 570 | 1050 | 414 |
| **2022** | 2869 | 1069 | 1393 | 677 |

Mənbə: https://www.stat.gov.az/source/demoqraphy/

1990-2022-ci illər ərzində daimi yaşayış məqsədilə Azərbaycana gələn və Azərbaycandan gedənlərin sayındakı dəyişmələr bunu deməyə əsas verir ki, 1990-1992-ci illərdə olkədən gedən və ölkəyə gələn miqrantların sayının yüksək göstəricisi 1993-cü ildən etibarən kəskin şəkildə azalmışdır. Bu azalmada dövrün siyasi, iqtisadi vəziyyətinin və ölkənin müharibə şəraitində olmasının ciddi

əhəmiyyəti vardır.2015-2018-ci illər arasındakı artım 2019-2020-ci illərdə qlobal pandemiya şəraitinin təsiri ilə azalmağa doğru meyl etmiş, lakin 2021-ci ildən etibarən yenə artım tempi göstərmişdir. Ancaq bu artım tempi 23 illik göstəricilər fonunda diqqəti cəlb etmir.

Digər tərəfdən bənzər tendensiya MDB ölkələrinə gedən və gələnlərin sayındakı dəyişmədə də müşahidə edilmişdir.




**Şəkil 1.** 1990-2022-ci illər üzrə miqrasiya göstəricilərinin dinamikası

Səkil 1-dən belə bir qənaətə gəlmək olar ki, 2000-ci ildən sonra miqrasiya göstəricilərindən çox ciddi artım müşahidə olunmamışdır. MBD ölkələri ilə bağlı göstəriciləri və daimi yaşayış üçün gedənlərin, gələnlərin ümumi göstəricilərini ayrı ayrılıqda qrafiki şəkildə qeyd etsək daha aydın təsvir əldə etmiş olarıq.




**Şəkil 2.** Daimi yaşayış üçün Azərbaycana gələnlərin və gedənlərin 1990-2022-ci illər üzrə dinamikası

Şəkil 2-dən aydın şəkildə görmək olar ki, 1990-cı ildən etibarən Azərbaycandan gedənlərin sayı daimi yaşayış məqsədilə ölkəyə üz tutanların sayı ilə nisbətdə yüksəkdir. İndi isə oxşar tendensiyanın MBD ölkələrinə gedən və MDB ölkələrindən gələnlərin sayında müşahidə olunub-olunmadığına nəzər salaq.




**Şəkil 3.** Daimi yaşayış üçün MDB ölkələrinə gedən və MDB ölkələrindən gələnlərin dinamikası

Şəkil 3-dən belə bir nəticəyə gəlmək olar ki, MDB ölkələrinə olan miqrasiya göstəriciləri ümumi miqrasiya göstəriciləri ilə müqayisədə 2005-ci ilədək öz dinamikliyini qoruyur və 2005-ci ildən etibarən illər üzrə çox kiçik fərqlər müşahidə olunur.

**NƏTICƏ**

Aparılan tədqiqat işindən belə bir nəticəyə gəlmək olar ki, miqrasiya prosesi çoxillik göstəricilərin təhlili əsasında tədqiq edildikdə, bir sıra digər faktorların təsiri nəzərə alınmaqla daha əhatəli bir şəkildə öyrənilə bilər. 90-cı illərin müharibə şəraiti, təhsil, əmək bazarı, COVİD -19 Pandemiyası və bir sıra digər səbəblər əsas götürülərək 1990-2022-ci illər üzrə miqrasiya trendlərini izah etmək mümkündür. Miqrant axınında son illərdə müşahidə olunan stabillik, ayrı-ayrı məqsədlərlə gedən miqrantların məqsədləri, miqrantların yaş-cins tərkibi kimi kəmiyyət göstəricilərinin də müəyyənləşdiriləməsi ilə əhatəli bir şəkildə təhlil oluna bilər.

**ƏDƏBIYYAT SIYAHISI**

1. E.M.Nəsibov. Miqrasiyanın əsasları. Miqrasiologiya. Miqrasiya prosesləri. Dünya miqrasiya mərkəzləri. I Kitab. Bakı, “Elm və Təhsil” nəşriyyatı, 2014, 240 səh.
2. International Organization for Migration (IOM), 2023. Migration in the Republic of Azerbaijan: A Country Profile 2013–2021. IOM, Geneva.
3. P. Martin and J. Widgren: “International migration: Facing the challenge”, in Population Bulletin (Washington DC, Population Reference Bureau, 2002), Vol. 57, No. 1.
4. Ritzen, J., Zimmermann, K.F. A vibrant European labor market with full employment. IZA J Labor Stud **3**, 10 (2014). https://doi.org/10.1186/2193-9012-3-10
5. https://e-qanun.az/framework/46959
6. https://www.stat.gov.az/

# SOSIAL SIĞORTALAR ÜZRƏ ÖZƏL-DÖVLƏT ƏMƏKDAŞLIĞI: HƏYAT SIĞORTASI ASPEKTINDƏN

**MƏLƏK, ƏLIYEVA**
Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutu
İnklüziv sosial inkişaf
*melekaliyewa@gmail.com*
BAKI, AZƏRBAYCAN

**XÜLASƏ**

Sosial sığortalar hər bir ölkədə sosial müdafiənin həyata keçrilməsində əvəzsiz vasitədir. Sosial sığorta sistemində özəl-dövlət əməkdaşlığının yaradılması və uzunmüddətli dövrdə yükün bu iki subyekt arasında bölüşdürülməsi olduqca vacibdir. Ona görə ki, sosial sığorta bütün əhalini əhatə etdiyindən onun xassələri kifayət qədər genişdir və administrativ yük ilə yanaşı idarə edilməsində də çətinliklər qaçınılmazdır. Qeyri-dövlət sosial sığortanın inkişaf etdirilməsi həm dövlətin sosial müdafiə sistemində fəaliyyət çevrəsini genişləndirilməsinə, həm də özəl şirkətlərin buraya daxil olub müvafiq xidmətlər göstərməsinə təkan verəcəkdir. Qeyri-dövlət sosial sığorta özlüyündə sosial müdafiə sisteminə özəl təşkilatları cəlb etmək ilə bu sahədə rəqabət yaratmağa, sosial müdafiə sisteminin infrastrukturunun yaxşılaşdırılması və əhaliyə göstərilən xidmətlərin keyfiyyətinin artırılması, onlar üçün yeni sosial sığorta məmulatlarının hazırlanması və bir nöqtədə sosial sığorta sisteminin bir qədər kommersiyalaşdırılmasını ifadə edir. Tədqiqatın elmi yeniliyi ondan ibarətdir ki, Azərbaycanda qeyri-dövlət sosial sığortanın inkişaf etdirilməsi perspektivləri təhlil edilmiş və müəyyən qiymətləndirmələr aparılmış və bu xüsusda təklif və tövsiyələr verilmişdir. Gələcəkdə tədqiqatın nəticələrindən sosial sığorta siyasəti həyata keçirən müvafiq qurumlar, təşkilatlar istifadə edə bilər və bu, onun praktiki əhəmiyyətini artırır. Həyat sığortalarının sosial sığorta ilə qarşılaşdırılması, mikro həyat sığortalarının təklif edilməsi və bir sıra bu qəbildən tövsiyələr tədqiqatın üstünlüyünü artırır. Qeyri-dövlət sosial sığortanın sosial müdafiə sistemi və ölkə iqtisadiyyatı üçün əhəmiyyətinin aydınlaşdırılması tədqiqatın nəticəsini təşkil edir.

**AÇAR SÖZLƏR: həyat sığortasi, qeyri-dövlət sosial sığorta, mikro həyat sığortasi**
**KEYWORDS: Life insurance, non-state social insurance, micro life insurance**

## GIRIŞ

Bu tədqiqat işində həyat sığortası qeyri-dövlət sosial sığorta kimi qiymətləndirilir. Tədqiqat işinin əhəmiyyəti ondadır ki, sosial sığorta üzrə dövlət-özəl əməkdaşlığının artırılması, sosial sığortalar üzrə bazarın liberallaşdırılması və qeyri-dövlət sosial sığortaların inkişaf etdirilməsi baxımından təhlil və qiymətləndirmələr aparılmışdır. Tədqiqatın nəticələri bu sahədə fəaliyyət göstərən müvafiq qurumlar tərəfindən istifadə oluna bilər. Tədqiqat üç hissəyə ayrılır, girişdə ilk olaraq həyat sığorta növlərini sosial sığorta növləri ilə qarşılaşdıracağıq.

Həyat sığortaları insan həyatının mənəvi maraqlarını maddi olaraq təmin edən sığorta növüdür. Sırf bu sığortalar ilə gələcəyə dair reallaşma ehtimalı olan risklərin güvəncə alınması mümkündür. Həyatın ölüm halından sığortası buna bir nümunədir. Belə ki, həyatın ölüm halından sığortası vərəsəlik qaydasında formalaşdırılmışdır və şəxs göstərilən yaş həddində dünyasını dəyişərsə sığorta müqaviləsində qeyd olunan faydalanan şəxsə müqavilədə razılaşdırıldığı formada aylıq, rüblük, yarımillik, yaxud, ildə bir dəfə ödəniş edilir. Bu sığorta növünün yeganə mənfi cəhəti şəxs dünyasını göstərilən yaş həddində dəyişməzsə, uzunömürlü olarsa sığorta ödənişinin verilməməsidir. Buna uyğun olaraq sığorta müqavilələrində müddətin bitməsinə 6 ay ilə 12 ay qalmış yenidən baxışın keçrilməsi və sığorta tariflərində müəyyən fiksasiyalar aparılmaqla müqavilə müddəti uzadılsın. Yəni sığortalı ilə müqavilənin müddətinin uzadılması və hər il üçün sığorta haqqına müvafiq əlavələr şəklində sığortaçıya ödəniş edilməsi yaxşı olardı. Göstərilmiş sığorta növü sosial müdafiə sistemində ailə başçısını itirməyə görə aylıq müavinətə uyğun gəlir (Stifel, n.d.). Müqqayisədə həyatın ölüm halından sığortası daha genişdir və sığortalının ölümü halında onun uşaqlarının neçə yaşı olmasından asılı olmayaraq faydalanan şəxs və ya şəxslər üçün sığorta ödənişi keçərlidir.

Həyat sığortasının bir digər növü olan annuitet sığortasında isə sığorta obyekti sığortalının, yaxud sığorta olunanın həyatı ilə əlaqədar əmlak mənafeləridir. Burada sığortalı üçün risklər müəyyən yaşa çatmaq, əlillik, xəstəlik ilə əlaqədar əmək qabiliyyətini itirmək, ailə başçısını itirmək, işsiz qalmaq və dolayısı ilə şəxsi gəlirlərin azalması, yaxud tamamilə itirilməsi aid ola bilər. Bu sığorta növündə əhatə olunan riskləri nəzərə alarıqsa onun sosial müdafiə sisteminin əhatə dairəsinə nə qədər yaxın olmasını müşahidə etmək olar.Sığorta ödənişi də, bir qayda olaraq müqavilə əsasında tənzimlənir və ödənişlərin qrafiki də sığortalı ilə sığortaçının maraqlarına uyğun şəkildə razılaşdırılır.

Həyatın yaşam sığortası isə daha çox gələcəyə yatırım qabariti ilə seçilir. Belə ki, bu sığorta növündə şəxsin sığorta ödənişi ya özünə, ya da onun həyatdan məhrum olması halında faydalanan şəxsə verilir. Həyatın yaşam sığortası nisbətən ən bahalı yəni sığorta tarifi yüksəkdir, lakin aparılmış araştırmalar onu sübut edir ki, gəlirlidir. Həyatın yaşam sığortasına ödənilən sığorta haqqından heç bir halda vergiyə və DSMF-ə maliyyə vəsaiti tutulmur. Nəticədə sığorta haqqına maaşdan birbaşa ödəniş ayrılır və əlavə olaraq da gəlirlilik üçün müəyyən faiz hesablanır. Bir sözlə, yaşam sığortası ilə müqayisədə sığorta haqqına ekvivalent vəsaitin banka depozit olaraq qoyulması zamanı daha az gəlir əldə edilir. Həyatın yaşam sığortasına bir çox hallarda yığım sığortası kimi də baxılır. Buna müvafiq olaraq həyatın yaşam sığortası sosial müdafiə sistemində insan həyatının keyfiyyətinin artırılmasında təkanverici mexanizm kimi qəbul edilə bilər.

Əmək qabiliyyətinin itrilməsi hallarından sığorta növü sosial müdafiə sistemində məcburi dövlət sosial sığorta ödəmələrində əmək qabiliyyətini müvəqqəti itirmiş işçilərə sığortaedənin vəsaiti hesabına ödənilən müavinətlərə uyğun gəlir. Burada sığorta olunan qəfil yaxud xəstəlik nəticəsində əmək qabiliyyətini itirərsə sığorta müqaviləsi şərtlərinə müvafiq ona ödənişlər həyata keçrilir. Zənnimizcə bu sığorta növü özündə müxtəlif çalarlarda sosial müdafiə elementlərini birləşdirir. Belə ki, əmək fəaliyyəti ilə məşğul olan şəxs, gəlirlərinin tamamən, yaxud qismən itirilməsi halında sığorta ödənişi alır və ağır sosial vəziyyətdə yaşamaq ilə müqayisədə əmək qabiliyyətini bərpa edənə kimi gəlir əldə edir. Bu sığorta növü fərdlərin əmək qabiliyyətini itirdikdə borclanmasının qarşısını alır və onların həyatında balansın qorunması, stabillik ilə növbəti addımların sağlam şəkildə atılmasına imkan verir. Sığortalılar sağlam şəkildə qərar qəbul etməklə sosial təminatın özəl versiyası kimi qəbul edilən sığorta növünə üz tuturlar.

Həyatın sağalmaz xəstəliklərdən sığortası isə insan həyatını çətinləşdirən xəstəlik nəticəsində bəzi hallarda isə fiziki sağlamlığını itirməklə yanaşı əmək qabiliyyətini də itirib köməksiz vəziyyətdə qaldığı halda müstəsnadır. Belə ki, müəyyən sağalmaz xəstəliklər var ki, məsələn xərçəng, miokard infarktı, insult, terminal böyrək çatışmazlığı və s. insan həyatını təhdid edərək, onun ömrünü qısaldaraq həyat keyfiyyətini minimuma endirir. Bu kimi vəziyyətdə sığortalı üçün sığorta ödənişi verilir. Sığortalının həyat keyfiyyətinin itirilməsi hadisəsi baş vermir. Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin və İcbari Sığorta üzrə Dövlət Agentliyinin xətti ilə əhalinin sağlamlığının yaxşılaşdırılması və bu yöndə davamlılığın artırılması istiqamətində bir sıra proqramlar mövcuddur. Bu proqramlardan biri kimi xərçəng üzrə respublikada bütün xərçəng xəstələrinin müalicəsinin dövlət hesabına maliyyələşdirilməsini misal göstərə bilərik. Buna rəğmən düşünürük ki, xəstələrin əlavə təminat ilə əhatələnməsində ancaq müsbət nüanslar vardır.

**TƏDQIQAT METODU**

Tədqiqat işində müqayisəli təhlil və kəmiyyət metodlarından istifadə edilmişdir. Müvafiq metodlar əsasında hipotez qurulmuş və təhlillər aparılmışdır.

Azərbaycanda həyat sığortasının növlər üzrə son beş illik dinamikasını təhlil etdikdə icbari sığortanın könüllü həyat sığortasından təbii olaraq 4 dəfəyə qədər kiçik olmasını müşahidə edirik. (Diaqram 1). Bunun çox sadə səbəbi vardır. İcbari həyat sığortasının sadəcə bir növü vardır. Bu istehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta növüdür.




***Diaqram 1.*** *Həyat sığortası üzrə könüllü və icbari sığorta haqlarının faizlə proporsiyası*

***Mənbə:*** *Azərbaycan Respublikasının Mərkəzi Bankının statistik hesabatı (2023) əsasında müəllif tərəfindən hazırlanmışdır.*

Könüllü həyat sığortasının 2019-2023-cü illər üzrə təhlili nəticəsində müvafiq dövrdə pandemiyadan sonra dalğalanmalar müşahidə edilmişdir (Diaqram 2). Könüllü həyat sığorta növləri üzrə ən çox sığorta haqqı həyatın yaşam sığortası üzrə toplanmışdır. Diqqətinizə təqdim edim ki, 2023-cü il tam başa vurulmadığından yanvar-avqust aylarının statistik göstəricilərinə istinad edilmişdir. Həyatın yaşam sığortasını həyatın ölüm halından sığortası izləyir ki, bu da təbii ki, sevindirici haldır. Artıq, vətəndaşlarımız ölümdən sonra ailə üzvlərinin, doğmalarının gələcəyini, sosial təminatını güvənc altına almaq üçün real addımlar atırlar. Qeyd olunan dövr ərzində əmək qabiliyyətinin sığortası üzrə haqlar 1.7 mln. AZN və sağalmaz xəstəliklərdən sığorta isə 1.6 mln. AZN olmuşdur. Sağalmaz xəstəliklərdən sığorta üzrə haqların trendi artan istiqamətdədir.




***Diaqram 2.*** *Könüllü həyat sığortası sinifləri üzrə sığorta haqları, min manatla*

***Mənbə:*** *Azərbaycan Respublikasının Mərkəzi Bankının statistik hesabatı (2023) əsasında müəllif tərəfindən hazırlanmışdır.*

Təhlildən belə nəticəyə gəldik ki, həyat sığorta bazarının genişləndirilməsinə ehtiyac vardır. Problem olaraq, Azərbaycan həyat sığorta bazarının məhdud çərçivədə olmasını aydınlaşdırmışıq. Həyat sığorta bazarının inkişaf etdirilməsi ölkə iqtisadiyyatı üçün səmərə vəd edir (Dickinson, 2017).

Təklif edirik ki, həyat sığorta bazarının genişləndirilməsi istiqamətində addımlar atılsın. Buraya sığorta bazarının təşviq edilməsi, sığortaçılara müvafiq bir sıra vergi güzəştlərinin formalaşdırılması, sığortada inklüzivliyin təmin olunması yönündə xırda sığortaçıların mənafeyinin müdafiə olunması kimi işlər daxildir. Həyat sığorta bazarı olduqca dinamikdir və bunun iqtisadi mahiyyətinə nəzər yetirdikdə bazarın satıcılarının hər kəs üçün mənfəətli olmasını müşahidə edirik (Goddeeris, 1984).

Həyat sığorta bazarının genişləndirilməsinin bir yönü də innovasiyalara diqqət yetirilməsidi. Düşünürük ki, sığorta bazarına nəzarət dövlət qurumu olan Mərkəzi Bank tərəfindən həyat sığorta fəaliyyətində innovativ tələblərin qoyulması maraqlı olardı (Goddeeris, 1984).

Bir digər problem həyat sığorta növlərində inklüzivliyin aşağı olmasıdır. Azərbaycan sığorta bazarında xüsusilə apardığımız araştırma nəticəsində mikro-həyat sığortaların demək olar ki, mövcud olmadığını bilirik. Micro-həyat sığorta növlərinin inkişaf etdirilməsi əhəmiyyətlidir. Əhalinin bütün təbəqələrinin istehlakı və faydalanması baxımından sığorta inklüzivliyinin artırılması çox önəmlidir. Micro-həyat sığortaları sosial müdafiə sistemində ən önəmli halqadır və sosial sığortanın özəlləşdirilməsində prioritetdir. Həyat sığortaları Azərbaycanda ən bahalı sığorta hesab oluna bilər. Minimum əmək haqqı və yaşam sığorta haqqını müqayisə etdik. 2023-cü ildə minimum həcmdə yaşam sığorta haqqı miqdarı minimum əmək haqqının, sadəcə, 15% civarında olmuşdur.

Yuxarıda aydınlaşdırdığımız kimi həyat sığortaları əhalinin sosial müdafiəsində əlavə dayaq prinsiplərini ehtiva edir. Sığortalılar sığorta hadisəsi baş verdiyi zaman sığorta ödənişi alır ki, bu da onların təminatında və həyat keyfiyyətinin artırılmasında əlavə üstünlükdür. Bir sıra ölkələrdə, vətəndaşların həyat sığortaları varsa, dövlət tərəfindən onlara sosial müavinət ayrılanda müəyyən qədər azaldılmalar tətbiq olunur (Progressive, 2023). Lakin, Azərbaycanda vətəndaşların sosial müdafiə təminatında, onların sığorta hesablarında toplanan sığorta haqlarının miqdarı heç bir rol oynamır. Vətəndaşlar, həm sığorta ödənişi, həm də sosial müdafiə təminatı əldə edə bilər. Bu konteksdən də mikro-həyat sığortalarının könüllü və icbari növlərinin təşkil edilməsində sadəcə fayda vardır.

Təklif edirik ki, həyat sığortaları konteksindən kollektiv micro-həyat sığortası formalaşdırılsın. Bununla da işçilər Həmkarlar İttifaqı təşkilatına xas cüzi ödənişlər etməklə il sonunda toplanan sığorta haqqını və buna müvafiq gəlirini əldə etsin. Belə ki, bu əhalinin sığortaya olan inamını da yüksəltməklə yanaşı onların sosial vəziyyətinin yaxşılaşdırılmasında stimul olar. Təbii ki, sığortaya əsasən də həyat sığortasına əhalinin baxış bucağını dəyişmək üçün ilkin mərhələdə mikro-sığortalar dövlət sığorta təşkilatı yaxud da nəzarət səhm paketi 51% dövlətdə olmaqla formalaşan sığorta təşkilatları tərəfindən də təşkil edilə bilər. Lakin, sosial sığortanın liberallaşması istiqamətindən mikro-sığortaların özəl sığorta təşkilatları tərəfindən həyata keçirməsi daha məqbuldur.

Həyat sığortaları tərkibində pensiya anlayışına da toxunur. Bu baxımdan DSMF-in həyat sığorta şirkətləri ilə əməkdaşlığı, həm həyat sığorta bazarının inkişafına təkan verər, həm də sosial sığortaların dövlətin əlində təmərküzləşməsindən ziyadə özəlləşib paylaşılmasına da səbəb olar. Pensiyaların bir qrumda cəmlənməsi, eyni zamanda risklərin də vahid formada cəmlənməsidir. DSMF və həyat sığortaları qarşılıqlı fəaliyyət göstərərsə, vətəndaşların DSMF-də toplanan pensiya sığorta haqlarını özəl həyat sığorta təşkilatına keçirmək kimi haqqı formalaşdırıla bilər. Təbii ki, bunun da hüquqi əsası yaradılmalıdır. Bir digər əməkdaşlıq nümunəsi isə, DSMF ilə yanaşı pensiyaların müəyyən miqdarının özəl sığorta təşkilatında toplanmasıdır. Təbii ki, qarşılıqlı razılaşma əsasında vətəndaşların bir qism pensiya yaxud işsizlikdən sığorta haqları rentabellik gözlənilməklə həyat sığorta təşkilatlarına transfer edilsin. Bu təkliflərin sosial sığorta və həyat sığorta təşkilatlarında hüquqi bazanın gücləndirilməsinə, şəffaflığın artırılmasına birbaşa təsiri gözlənilir. Dövlət və özəl əməkdaşlığı sosial sığortaların effektiv üsullarını formalaşdıra bilər. Dövlət ünsürü vətəndaş üçün təminat və dayanıqlılıq ifadə edirsə, özəl sığorta təşkilatı ünsürü isə effektiv marketinq, əhalinin cəlb olunması və sığortadan faydalanmasında çeviklik vəd edir. İkisinin hibrid formada sosial sığortada iştirakı proqnozlarımıza əsasən sığorta haqlarına təsir edə bilər, lakin vətəndaş məmnunluğunu da yüksəldə bilər.

Sosial sığortanın tətbiqində həyat sığorta təşkilatlarının iştirakı qeyri-dövlət qurumunun sosial sığortanı həyata keçirməsi hesab olunur. Müasir sosial müdafiə sistemində sosial sığortanın tənzimlənməsində özəl-dövlət əməkdaşlığına üstünlük verilir. Belə ki, sosial sığorta ilə qeyri-dövlət təşkilatlarının dövlətin sosial siyasətinin həyəta keçirməsində iştirakı təmin olunur. Bu dövlətin sosial yükünü azaltmaqla yanaşı onun paylaşılma mexanizmini də formalaşdırır. Həyat sığortaları ilə əhali könüllü və fəal şəkildə öz sosial müdafiəsini təmin etmək üçün müstəqil qərar verir. Bu prinsipdən əhali yalnız dövlətin təklif etdiyi sosial müdafiə ünsürləri ilə kifayətlənmir və eybi zamanda onu əvəzləyə bilən digər əmtəələrdən də (həyat sığorta məhsulları) faydalana bilir.

Sosial sığortalar əsasən həmrəylik prinsipinə əsaslanır. Bu baxımdan toplanan maliyyə vəsaiti bir hovuz əmələ gətirir və ehtiyaclılar üçün müəyyən qayda ilə orda vəsait bölüşdürülür. Bu mexanizm eyni ilə həyat sığortalarında da keçərlidir. Sosial sığortanı həyata keçirən dövlət qurumlarının

administrativ xərcləri formalaşır. Sosial sığorta sferasında əhaliyə xidmətin keyfiyyətinin yüksəldilməsi baxımından sosial sığorta üçün fiksə olunmuş faiz dərəcələrinin artırılması bir mənalı qarşılanmır. Həyat sığortası təşkilatları isə bu baxımdan bir qədər irəlidədir. Həyat sığorta təşkilatlarında sığorta tarifi sərbəst formada təyin olunur və yalnız bazar rəqabəti şəraitində tənzimlənir, dolayısı ilə tariflər sığortalılar üçün rasional olmalıdır. Baxmayaraq ki, onların da xərcləri mövcuddur, eyni zamanda vergi də ödəyirlər. Qarşılaşdırmadan aydındır ki, həyat sığorta təşkilatlarının təşviqi və sosial sığortaya alternativ kimi irəli çəkilməsi müəyyən mənada rentabellidir. Düşünürük ki, Azərbaycan həyat sığorta bazarının əsas iştirakçıları olan sığorta təşkilatları qeyri-dövlət sosial sığorta ünsürü kimi bütün tələblərə cavab verə bilər. Belə ki, 2022-ci il həyat sığortasının nüfuzetmə dərəcəsinə görə Azərbaycan (0.4%) bütün qonşu ölkələri qabaqlamışdır (Diaqram 3). Həyat sığorta sıxlığı həyat sığortası üzrə toplanan sığorta haqlarının ÜDM-in tərkibində faizlə ifadəsidir. ÜDM-ə nisbətdə toplanmış sığorta haqları, sığorta bazarının inkişaf göstəricisini ifadə edir. Bu göstərici Türkiyə və İranda 0.2%, Rusiya və Qazaxıstanda 0.3%, Gürcüstanda 0.1% olmuşdur. Ermənistanda isə həyat sığorta haqlarının miqdarı rəsmi mənbələrdə göstərilmədiyindən hesablama aparmamışıq.




***Diaqram 3.*** *Həyat sığortasının nüfuzetmə əmsalı, % 2022*

***Mənbə:*** *World Bank (2022) və OECD (2022) mənbələri əsasında müəllif tərəfindən hazırlanmışdır.*

Sığorta sıxlığının mahiyyəti adambaşına düşən sığorta haqlarının miqdarını müəyyən etməkdir ki, ölkə səviyyəsində əhalinin sığorta ilə təmin olunma ölçüsünü ifadə edir (Manz, 2023). Adambaşına toplanan həyat sığorta haqları üzrə 2022-ci ilə müvafiq ölkələri müqayisə etdikdə Azərbaycanın (23) bir sıra qonşu ölkələri geridə qoymasını müşahidə edirik. Belə ki, ölkəmiz bu göstərici ilə regionda yalnız Rusiya (47) və Qazaxıstandan (31) geridə qalmışdır. Adambaşına toplanan həyat sığorta haqlarına görə Türkiyə (21), Gürcüstan (7), İran (8) ölkəmizdən geri qalmışdır (Diaqram 4). Azərbaycanın bu göstərici ilə regionda yaxşı yerə sahib olması onun qeyri-dövlət sosial sığortanın inkişafında potensialının yüksək olmasını göstərir.




***Diaqram 4**. Həyat sığortasının sıxlığı, 2022*

***Mənbə:** World Bank (2022) və OECD (2022) mənbələri əsasında müəllif tərəfindən hazırlanmışdır.*

Həyat sığortası əhalinin sosial müdafiəsinin gücləndirilməsində liberallıq baxımından açar hesab olunur, belə ki, qeyri-dövlət sosial sığortanın bir formasını əmələ gətirir. Fərdlər həyata və gələcəyə dair risklərini sığorta etmək üçün öz hesablarına həyat sığortasına müraciət edirlər. Həyat sığortasının inkişafı həm ölkə iqtisadiyyatında, həm də əhalinin rifahının yaxşılaşdırılmasında vacibdir. Əhalinin sosial vəziyyəti onun həyat sığorta haqlarına təsir edirmi suallı yaranır. Bu suala cavab vermək üçün sosial müdafiə elementlərindən orta təbəqənin xüsusi çəkisi ilə həyat sığortasının yüksək səviyyədə inkişaf etdiyi ölkələr arasında korelyasiya təhlili aparmaq istədik. Lakin, son illərə aid orta təbəqənin xüsusi çəkisini göstərən statistik məlumatlar olmadığından əhalinin orta illik gəliri ilə sığorta sıxlığı arasında reqresiya təhlili aparmalı olduq. Təhlildə alternativ fikir əhalinin gəlirləri artdıqca adambaşına düşən həyat sığorta haqları da artır şəklindədir.

Reqressiya təhlilinin nəticəs müsbət olmuşdur və alternativ fikir öz təsdiqini tapmışdır. Təhlil 30 müxtəlif inkişaf etmiş və Azərbaycan daxil qonşu ölkələrinin göstəriciləri əsasında aparılmışdır. Təhlildə p-value göstəricimiz 0.05-dən çox kiçikdir və bu da avtomatik olaraq alternativ fikrimizi isbatlayır (Diaqram 5). Eyni zamanda, korelyasiya əmsalı (multiple R) 0.65-dir və iki verilən arasında orta dərəcədə asılılıq mövcuddur. Standart qalıqlar arasında 3 yaxud ondan böyük göstəriciyə rastlanmamışdır və bu da təhlilin uğurla aparılmasını təmin edir. Əhalinin orta illik gəlirləri sərbəst dəyişəni (x) ilə adambaşına düşən həyat sığorta haqları asılı dəyişəni (y) arasında pozitiv korelyasiya mövcuddur.

$y = f(x) + u$ (1)

$y = \beta_0 + \beta_1 x$ (2)

$H_0 : \beta_1 = 0$ (3)

$H_0 : \beta_1 \neq 0$ (4)

| *Regression Statistics* | |
|---|---|
| Multiple R | 0,653806 |
| R Square | 0,427462 |
| Adjusted R Square | 0,407014 |
| Standard Error | 1178,257 |
| Observations | 30 |




ANOVA

| | *df* | *SS* | *MS* | *F* | *Significance F* |
|---|---|---|---|---|---|
| Regression | 1 | 29022254 | 29022254 | 20,90504 | 8,92E-05 |

***Diaqram 5.*** *Həyat sığorta sıxlığı və orta illik gəlir, 2022 ($)*

***Mənbə:*** *Sigma Re Institute (2022) və Worldbank (2022) əsasında müəllif tərəfindən hazırlanmışdır.*

Müqayisəli təhlil (reqresiya analizi) əsasında, əhalinin orta illik gəlirləri və adambaşına düşən həyat sığorta haqları üzrə birbaşa asılılıq müşahidə edilmişdir. Təhlildən gəldiyimiz nəticə həyat sığortasının inkişaf etdirilməsinin mərhələli yöndə olması və burada hər bir subyektin öz funksiyasına əsaslanan fəaliyyətinin olması yönündədir. Həyat sığortasının inkişafı sosial sığortaya alternativ ola bilər.

**NƏTICƏ**

Həyat sığorta təşkilatları qeyri-dövlət sosial sığortanın təşkil olunmasında və həyata keçrilməsində kifayət qədər rol oynaya bilər. Təhlil və qiymətləndirmələrdən bu nəticəyə gəldik ki, əhalinin orta illik gəliri artdıqca sığorta haqlarının da miqdarında artım müşahidə olunur. Yəni, həyat sığortaları işləyən əhalinin maraq dairəsindədir. Bunu sosial sığortalardan fərqləndirən yeganə cəhət riskin baş verməsi qövmündə, yaxud müddətin sona çatması halında sığorta ödənişinin sığortalıya yaxud faydalanan şəxsə ödənilməsidir. Sosial sığortada isə əhalinin aztəminatlı seqmenti xüsusilə dəstəklənir, baxamayaraq ki, onların bir qismi ümumiyyətlə fəal əhali kütləsinə daxil olmamış və sosial sığorta fondlarına heç bir ödəniş etməmişlər.

Gəldiyimiz bir digər nəticə bundan ibarətdir ki, həyat sığortaları daha rentabellidir və onlar fəaliyyəti çərçivəsində konkret risklərə yönəlib sığorta tarifi və buna müvafiq sığorta haqqı təyin edə bilirlər. Yəni sığorta tarifinin təyin olunmasında daha müstəqildirlər və manevr etmək qabiliyyətinə malikdirlər. Sosial sığorta qurumları isə vahid tarif çərçivəsində fonda vəsait toplayırlar. Onların manevr etmə qabiliyyəti aşağıdır və tarifi yüksəltdikdə əhalinin kütləvi narazılığı ilə qarşılaşa bilərlər. Bu baxımdan sosial sığortaya alternativ qeyri-dövlət sosial sığorta ünsürü kimi həyat sığortalarının dövlət tərəfindən dəstəklənməsi önəmlidir.

Mikro-həyat sığortaları və onun xüsusilə korporativ forması əhalinin sosial vəziyyətinin stabilliyi baxımından prealitetdir. Mikro-həyat sığortaları ayrıca sosial sahibkarlıq, kiçik və xırda sahibkarlıqda kreditləşmə zamanı tətbiq oluna bilər. Kredit götürmüş sosial sahibkarın müxtəlif səbəblərdən fəaliyyətini dayandırması halında onun kreditinin razılaşdırılan formada sığortaçı tərəfindən bank və ona bərabər hüquqda kreditora ödənilməsini təklif edirik. Korporativ mikro-həyat sığortasının isə əhalinin müxtəlif məqsədlər üçün, ən əsası kiçik risklərini nəzərə almaqla iş yerlərində formalaşdırılmasını təklif edirik. Bunun üçün çoxsaylı resurs tələb olunmur. Həyat sığorta təşkilatları elektronlaşma və rəqəmsallaşmanın köməyi ilə müəssisələrdə insanları vahid formada və məkanda toplaya bilər.

Həyat sığortalarında əhalinin tələblərini qarşılamaq üçün yeni sığorta təminat formaları hazırlanıb polisi olaraq təqdim oluna bilər. Bu sferada icbari sığortaların forması da artırıla və əhali üçün təminat forması olaraq tətbiq oluna bilər.

Həyat sığortalarının təşviqi eyni zamanda ÜDM-də qeyri-neft gəlirlərinin ağırlığının artması deməkdir. Bu mexanizmdən baxdıqda isə həyat sığortası iqtisadi cəhətdən olduqca əlverişlidir.

Həyat sığortasının faydalarına sığorta hadisələrinin təzminatı, hər sığortalının ehtiyacına uyğun sığorta təminat paketinin təklif olunması, sağalmaz xəstəliklərdən müalicə, əmanətlərin yığımı, zəmanətli gəlir daxildir. Belə ki, yaşam sığortası ilə sığorta haqqından heç bir tutulma olmadan maliyyə vəsaiti sığortaçıya köçrülür və orada müəyyən gəlirlilik əmsalı ilə sığortalanır. Müddətin sonunda sığortalı mənfəətli şəkildə sığorta ödənişini alır. Sağalmaz xəstəliklərdən sığorta isə öz növbəsində sığortalı yaxud faydalanan şəxsin həyatı əhəmiyyətli xəstəliyi ucbatından həyat keyfiyyətinin tam itirilməməsi üçün vasitədir. Bu qəbildən bir çox nümunə gətirmək olar.

Həyat sığortalarının düşünürük ki, əsas üstünlüyü sosial sığortalara paralel olması və cəmiyyətin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində uzlaşmasıdır. Həyat sığortaları özünün ehtiyat yaratma qabiliyyətinə görə isə iqtisadi cəhətdən arzuolunan məvhumdur.

**ƏDƏBIYYAT SIYAHISI**


1. Dickinson, G. (2017). Encouraging a dynamic life insurance industry: economic benefits and policy issues. OECD. https://www.oecd.org/finance/insurance/1857811.pdf
2. Goddeeris, J. H. (1984). Insurance and Incentives for Innovation in Medical Care. Southern Economic Journal, 51(2), 530-539. https://doi.org/10.2307/1057830
3. Manz, B. (n.d.). Per Capita Insurance Premium. moneyland.ch. https://www.moneyland.ch/en/per-capita-insurance-premium-definition
4. Mərkəzi Bank. (2023). Sığorta. cbar.az. https://www.cbar.az/page-189/insurance
5. OECD (2022). Insurance indicators : Penetration. Stats.oecd.org. https://stats.oecd.org/Index.aspx?QueryId=25444
6. Progressive. (2023). Does life insurance affect Social Security benefits? Progressive.com. https://www.progressive.com/answers/does-life-insurance-affect-social-security/
7. Swiss Re Institute. (2020). Premium per capita. sigma-explorer.com. https://www.sigma-explorer.com/index.html
8. Stifel. (n.d.). Two Lifetimes, Breadwinners, and Social Security. stifelmichiganregion.com. https://www.stifelmichiganregion.com/two-lifetimes-breadwinners-social-security.htm
9. World Bank. (2022). World Development Indicators. Databank.worldbank.org. https://databank.worldbank.org/reports.aspx?source=2&series=NY.GDP.PCAP.CD&country=#


# OMBUDSMAN HÜQUQLARIN MÜDAFİƏÇİSİ KİMİ: MƏHBUSLARIN ƏDALƏT AXTARIŞINDA ROLU


**SƏBİNƏ MƏMMƏDOVA**
Bakı Mühəndislik Universiteti
İqtisadiyyat və İdarəetmə/Dövlət Strukturlarında Menecment
*smemmedova28@std.beu.edu.az*
BAKI, AZƏRBAYCAN


## XÜLASƏ


İnsanlar bütün tarixi proses boyu öz ehtiyaclarını ödəmək üçün mütəşəkkilləşmiş və birlikdə yaşayan cəmiyyət statusu qazanmışlar. Cəmiyyətlərin bir araya gəlməsi nəticəsində yaranan ən böyük təşkilat dövlət idi. Dövlət cəmiyyətin və onun daxilindəki insanların hüquq və qanunlarını tarazlaşdıran məfhumdur. Zaman keçdikcə dövlətin vəzifə və məsuliyyətlərinin artması, dövləti yaradan insanlara qarşı nəzarət sisteminin ədalətsiz tətbiqləri, dəyişən və inkişaf edən dünyada dövlət idarəçiliyi anlayışında dəyişikliklər, vətəndaşların daha yaxşı təmin edilməsi, dövlətlə vətəndaşlar arasında yaranan mübahisələrin, problemlərin maksimum səviyyədə prioritetləşdirilməsi yolu ilə həll edilməsi ideyası Ombudsman qurumuna ehtiyac yaradıb.

Bu gün ədalət və insan hüquqları ümumbəşəri dəyərlər kimi qəbul edilir və hər kəs bu hüquqlardan istifadə etməlidir. Bununla belə, həbsxanalardakı məhbuslar kimi həssas qruplar çox vaxt hüquqlarının pozulduğu vəziyyətlərlə üzləşə bilərlər. Bu məqamda ombudsman təsisatlarının əhəmiyyəti ortaya çıxır. Hüquq müdafiəçiləri kimi Ombudsman məhbusların ədalətə qovuşmasında mühüm rol oynayırlar.

Cəmiyyətin ən həsas təbəqələrindən biri kimi məhbuslar bir çox çətinliklərə və hüquqlarının pozulmasına məruz qala bilərlər. Həbsxanalarda yaşayış şəraiti, səhiyyə xidmətlərinə çıxış və ziyarət hüquqları kimi bir çox məsələlərlə bağlı problemlər yarana bilər. Ombudsmanlar məhbusların yaşadığı bu problemləri diqqətlə araşdırır, həll yollarını təklif edir və hüquq pozuntularının təkrarlanmasının qarşısının alınması üçün çalışırlar. Bu məqalədə isə Ombudsmanın bir qurum olaraq bu problemləri aradan qaldırmaq üçün hansı işləri görməsiylə bağlı araşdırma aparılmışdır.

**AÇAR SÖZLƏR: Ombudsman, Ədalət, Məhbus**
**KEY WORDS: Ombudsman, Justice, Prisoner**

## GIRIŞ

Məhkumların ədalət axtarışında ombudsmanların rolu şikayətlərin araşdırılmasından başlayır. Ombudsman məhbusların və ya onların ailələrinin şikayətlərini qəbul edir və bu şikayətləri diqqətlə araşdırır. Lazımi sənədlər və sübutlar toplandıqdan sonra ədalətin təmin olunması üçün müvafiq həll yolları təklif edilir. Bu prosesdə Ombudsmanlar tərəfindən aparılan araşdırmalar şəffaflıq və hesabatlılıq prinsiplərinə əsaslanır.

Bununla belə, ombudsmanların rolu təkcə şikayətlərin araşdırılması ilə məhdudlaşmır. Eyni zamanda, hər iki tərəfin öz hüquqlarından xəbərdar olmasını təmin edərək, məhbuslar və həbsxana əməkdaşları üçün təlim və məlumatlandırma tədbirləri təşkil edirlər. Onlar həmçinin məhbusların həbsdən çıxdıqdan sonra cəmiyyətə reinteqrasiyasını dəstəkləyən proqramları təbliğ edirlər.

Ombudsmanların məhbuslar üçün gördüyü digər mühüm iş həbsxana sistemində struktur dəyişikliklərini təşviq etməkdir. Ombudsmanlar hüquq pozuntuları və ədalətsizliklər barədə hesabatları ilə həbsxana rəhbərliyinə və hökumətlərə sistemi təkmilləşdirməyə yönəldirlər. Bu hesabatlar çox vaxt ictimaiyyətə böyük təsir göstərir və islahat tələblərinə güc verir (Şantay Baykut, 2019).

Bunun nəticəsidir ki, məhbusların hüquqlarının müdafiəsi və ədalətin təmin olunmasında ombudsmanların mühüm rolu var. Məhkumlar cəmiyyətin ən həssas təbəqəsi kimi öz hüquqlarını qorumaq və ədalət axtarışlarını dəstəkləmək üçün etibarlı mexanizmə ehtiyac duyurlar. Ombudsman təsisatları da bu ehtiyacı ödəmək üçün mühüm vasitədir və məhbusların ədalət axtarışında mühüm rol oynayır.

Son zamanlar bir çox ölkələrdə, ədliyyə orqanlarının fəaliyyəti ilə bağlı ciddi problemlər var. Uzun məhkəmə və həbs müddətləri əsas problemlərdir. Bunların aradan qaldırılması üçün bir çox ölkələr öz məhkəmə sistemlərində islahatlar aparırlar. Belə ki, məhkəmə hakimiyyətinin müstəqil və qərəzsiz xarakterinə xələl gətirmədən daha hesabatlılıq və şəffaflıq təmin etməklə, əhalinin məhkəməyə etimadının artırılması istiqamətində işlər aparılır. Bu araşdırmada Ombudsman sisteminin məhkəmə sisteminin hesabatlılığının təmin edilməsində oynadığı rol araşdırılacaqdır.

## TƏDQIQAT METODU

## HƏBSXANA OMBUDSMANLIĞI

Bir ölkədə hüquqi dövlətin birinci vəzifəsi insanların əsas hüquq və azadlıqlarını qorumaq və təmin etməkdir. Əsas hüquq və azadlıqları təmin etmək üçün insanların şikayət yolu ilə hüquqlarını axtarmaq demokratik ölkələrdə ən çox yayılmış və ən çox istifadə edilən üsuldur. Güclü şikayət mexanizmində vətəndaşların reaksiyalarını və şikayətlərini qurumlar qarşısında həll etmələrini gözləmək olar. Bu gün cəzaçəkmə müəssisələrində məhbus və məhbusların şikayət yolu ilə müəssisəyə müraciət etməsi hüquqlarını axtarmaq üçün ən təsirli üsullardan biridir (Önen & Engin, 2019).

Həbsxanalardakı məhbuslar, içində olduqları qapalı mühitə görə bəzən çox həssas davrana bilirlər. Bəzən onlara qarşı haqsızlıq edildiyini düşünəndə şikayət etmək ehtiyacı hiss edirlər. Hər bir ölkənin öz şikayət mexanizmləri var və mövcud hüquqi strukturdan asılı olaraq, bunlar bəzən həbsxanaların öz daxilində, bəzən də həbsxanaların özündən kənar orqanlar və ya bölmələr tərəfindən həyata keçirilə bilər. Şikayətlərin həm şikayətçini, həm də həbsxana rəhbərliyini qane edəcək şəkildə

həlli istiqamətində böyük səylər göstərilir. Bununla belə, bəzi sistemlərdə şikayətlərə şəffaf şəkildə baxılmır və araşdırmaya ehtiyac yoxdur, bəzi sistemlərdə isə daha da pisi, problemlərin aradan qaldırılması üçün heç bir tədbir və ya prosedur belə həyata keçirilmir (Önen & Engin, 2019).

Həbsxanaların öz daxilində həll edə bilmədiyi problemlərdən qaynaqlanan xaos ucbatından bir çox ölkə müstəqil və qərəzsiz bir sistem axtarır. Bəzi ölkələrdə bu ehtiyacı ödəmək üçün Məhkumlar və Həbsxanalar üzrə Ombudsman təsis edilib. İngiltərədə həbsxana ombudsmanları dövlət nəzarətçisi kimi həbsxanalarda yaşanan problemləri araşdırır və həll edirlər (Çeliksoy & Bayan, 2020).

**AZƏRBAYCANDA OMBUDSMANIN YAXŞILAŞDIRILMASI ÜÇÜN GÖRÜLƏN İŞLƏR**

Azərbaycanda Ombudsmanlık institutunun effektivliyini artırmaq üçün bir çox əsaslı işlər görülməkdədir. Bu işlər, hüquq-mühafizə orqanının funksionallığını, təşkilat strukturasını, kadrların təkmilləşdirilməsini, maliyyə və texniki bazanın gücləndirilməsini, proseduraların yaxşılaşdırılmasını və ictimaiyyətin müdafiə orqanı ilə daha yaxından əlaqə qurulmasını əhatə edir.

Struktural dəyişikliklər: Ombudsmanlık institutunun struktural dəyişikliklər etməsi, effektiv fəaliyyəti və yaxşı xidmət təminatı üçün vacibdir. Bu dəyişikliklər, Ombudsmanın məsələləri daha sürətli və effektiv şəkildə həll etməsinə kömək edir. Bununla birlikdə, struktural dəyişikliklər, Ombudsmanın müvafiq bölmələr və birimlər arasında əməkdaşlığı gücləndirməsinə və fəaliyyətinin təkmilləşdirilməsinə də kömək edir.

Kadrların təkmilləşdirilməsi və təşkilatın gücləndirilməsi: Ombudsmanlık kadrlarının təkmilləşdirilməsi, məsələlərin daha səmərəli şəkildə həll edilməsinə kömək edir. Bu, personelin layihələr və məruzələrin daha sürətli işlənməsi üçün təlimlərin keçirilməsini, məruzələrin daha effektiv şəkildə həll edilməsinə kömək edir. Əlavə olaraq, təşkilatın gücləndirilməsi və struktural dəyişikliklər, Ombudsmanlık müəssisəsinin fəaliyyətini daha yaxşı nəzarət altında saxlamağa və əməkdaşlığı artırmağa kömək edir.

Maliyyə və texniki bazanın gücləndirilməsi: Ombudsmanlık müəssisəsinin maliyyə və texniki bazasının gücləndirilməsi, fəaliyyətinin sürətlənməsinə və effektivliyinin artırılmasına kömək edir. Bu, ictimaiyyətə daha yaxşı xidmət təmin etmək və məsələlərin daha sürətli və effektiv şəkildə həll edilməsinə kömək edir.

Proseduraların yaxşılaşdırılması: Ombudsmanlık proseduralarının yaxşılaşdırılması, məruzələrin daha sürətli və effektiv şəkildə işlənməsinə kömək edir. Bu, şikayətçilərin və məsələlərin daha yaxşı qorunmasına və müdafiə olunmasına kömək edir.

Kampaniyalar və təşkilat içi təlimlər: Ombudsmanlık institutu, ictimaiyyətin və digər qurumların Ombudsmanın fəaliyyəti və xidmətləri ilə daha yaxından tanış olması üçün kampaniyalar təşkil edir. Habelə, müəssisə daxilində vəzifəli şəxslərə təlimlər keçirilir.

Məruzələrin sürətli həll edilməsi: Ombudsmanlık institutu, məruzələrin daha sürətli həll edilməsi üçün layihələr təşkil edir və bu layihələr çərçivəsində fəaliyyət göstərir.

Bu tədbirlər, Azərbaycanda Ombudsmanın fəaliyyətinin effektivliyini artırmaq və vətəndaşların hüquqlarını daha effektiv şəkildə müdafiə etmək üçün görülür.

**OMBUDSMANIN YAXŞILAŞDIRILMASI ÜÇÜN GÖRÜLƏN İŞLƏRİN MƏHBUSLARA TƏSİRİ**

Azərbaycanda Ombudsmanlık institutunun effektivliyini artırmaq və təkmilləşdirmək, məhbuslar üçün bir sıra pozitiv təsirlərə səbəb olacaq. Bu dəyişikliklər, məhbusların hüquqlarını daha effektiv şəkildə qorunması və adalet arayışlarında daha yaxın dəstək alması üçün əsaslı dəyişikliklərə səbəb olacaq. İşlərin genişlənməsi və dəyişikliklərin tətbiq edilməsi, məhbusların hüquqlarının qorunmasında və cezaevi koşullarının yaxşılaşdırılmasında daha effektiv vəziyyətə gəlməsinə kömək edəcəkdir. İşə görülmüş struktural dəyişikliklər, təşkilatın fəaliyyətində daha dəqiqlik və nəzarətə imkan verəcək, bu da məhbusların məruz qaldığı problemlərin daha sürətli və effektiv şəkildə həll olunmasına kömək edəcəkdir.

Şikayətlərin daha sürətli yoxlanması: Proseduraların yaxşılaşdırılması və təkmilləşdirilməsi, məhbusların şikayətlərinin daha sürətli və effektiv şəkildə işlənməsinə kömək edəcəkdir. Bu, məhbusların yaşadığı problemlərin daha tezliklə həll olunmasına və onların haklarının daha sürətli şəkildə qorunmasına imkan verəcəkdir.

Məhbusların daha yaxşı informasiya və dəstək alması: Ombudsmanlık institutunun daha aktiv fəaliyyəti və ictimaiyyətə daha açıq olması, məhbusların daha çox informasiya və dəstək almağını

təmin edəcəkdir. Məhbuslar, yaşadıqları problemlər və hüquqi məsələlər haqqında daha çox dəstək və məsləhət almaq üçün Ombudsmanın qayğılarından daha çox istifadə edə biləcəklər.

Həbsxana şərtlərinin yaxşılaşması: Ombudsmanlık institutunun daha güclü və effektiv olması, cezaevi idarələrinin daha dəqiqlik və nəzarətdə işləməsinə kömək edəcəkdir. Bu, cezaevi şərtlərinin yaxşılaşmasına və məhbusların insan hüquqlarının daha effektiv şəkildə qorunmasına səbəb olacaq.

İctimaiyyətin daha çox diqqət yetirməsi: Ombudsmanlık institutunun effektivliyinin artırılması, toplumun Ombudsmanın fəaliyyətinə daha çox diqqət yetirməsinə və bu fəaliyyətə daha geniş dəstək göstərməsinə səbəb olacaq. Bu, məhbusların yaşadığı problemlərin daha geniş bir ictimai diqqətə sahib olmasına və dolayısı ilə daha çox dəstək almağa kömək edəcəkdir.

**MƏHBUSLAR ÜÇÜN HƏYATA KEÇİRİLƏN FƏALİYYƏTLƏR**

Azərbaycanda Ombudsmanlık institutu, çeşitli məhbuslar üçün müxtəlif fəaliyyətlər həyata keçirir. Bu fəaliyyətlər, məhbusların insan hüquqlarının qorunması, yaşadığı problemlərin həll olunması və cezaevi şərtlərinin yaxşılaşdırılması ilə bağlı olabilir. Beləliklə, bugünə qədər Azərbaycanda Ombudsmanlık institutu tərəfindən görülən işlər aşağıdakı sahələrdə olmuşdur:

Hüquq-mühafizə: Ombudsmanlık, məhbusların insan hüquqlarının qorunması üçün çalışır. Bu, məhbusların işgüzar tərəfindən hüquq pozuntularına məruz qalmaması və onların adaletli və insani şərtlərdə saxlanılmasını təmin etməyi özündə əhatə edir.

Şikayət İşlənməsi: Məhbuslar və onların ailə üzvləri, Ombudsmanlığa çeşitli şikayətlərlə müraciət edə bilirlər. Bu şikayətlər, məsələnin nəzərdən keçirilməsi, lazımi tədbirlərin götürülməsi və məsələnin həll edilməsi üçün müvafiq tədbirlər götürülməsini əhatə edir.

Cezaevi Şərtlərinin İncələnməsi və Yaxşılaşdırılması: Ombudsmanlık, cezaevlərində məhbusların yaşadığı şərtləri dəqiqliklə inceleyir və gərəkli tədbirlərin götürülməsi üçün müdaxilə edə bilər. Bu, cezaevi şərtlərinin insan hüquqlarına və standartlarına cavab verməsini təmin etmək məqsədi ilə aparılır.

Mənimsəmələrin və Yanlış Qərarların İncələnməsi: Ombudsmanlık, məhbusların mənimsəmələri və müvafiq proseslər əsasında həll edilməsi üçün sürətli və obyektiv yollar təklif edir. Bu, məhbusların mənimsəmələri və yanlış qərarların müzakirəsi və nəticələrinin yaxşılaşdırılması üçün aparılan fəaliyyətləri əhatə edir.

Təlimlər və Sensibilizasiya Fəaliyyətləri: Ombudsmanlık, məhbuslar və cezaevi personeli üçün insan hüquqları, adalet və müqavimət məsələləri ilə bağlı təlimlər və sensibilizasiya fəaliyyətləri təşkil edir. Bu, daha yaxşı informasiya və məlumat ilə həmin cəmiyyəti inkişaf etdirməyə kömək edir.

Bu fəaliyyətlər, məhbuslar və onların ictimaiyyətə qarşı tərəfdaşları üçün əhəmiyyətli bir rəhbərliyə və dəstəyə dönüşür. Ombudsmanlık institutunun bu sahədəki fəaliyyətləri, insan hüquqlarının qorunması və ictimaiyyətin inkişafı üçün kritik bir rola malikdir.

**NƏTICƏ**

Məhkəmə hakimiyyəti müstəqil mövqeyinə görə qanunvericilik və icra hakimiyyətlərinə çıxış imkanına malikdir.üzərində əhəmiyyətli bir imtiyaz var. Ancaq son illərdə ictimaiyyət idarəetmə sistemlərində dəyişiklik və transformasiyadan asılı olaraq Belə ki, dövlət idarəçiliyinin tərkib hissəsi olan məhkəmə orqanları da belədir onların fəaliyyəti şübhə doğurur.

Vətəndaş haqsızlığa məruz qaldıqda inzibati məhkəməyə müraciət edə bilər. Amma bu həm bahadır, həm də gecikdirilir. Bu gecikmə səbəbindən nəticə müsbət olsa belə, heç bir dəyəri olmaya bilir. Ancaq müvəkkil səviyyəsində olan ekspertlər və hüquqşünaslar vətəndaşa hüquq axtarışında köməklik edir, hətta onun adından haqq axtarır. Bu şəkildə praktiki, çevik struktur fərdlərin daha qısa müddətdə məmnun qalmasına və sistemə etibar etməsinə şərait yaradır.

Bir çox ölkələrin inzibati strukturunda özünəməxsus yeri olan Ombudsman institutu vətəndaşların şikayətinə səbəb olan idarəetmənin səhv və çatışmazlıqlarının aradan qaldırılmasında fəal rol oynayaraq idarə olunanların himayədarına çevrilib. Ombudsman bu funksiyası ilə pis idarəetmənin baş verməsində təsirli olan inzibati prinsiplərin və dövlət məmurlarının münasibətlərinin yaxşı idarəçiliklə uyğunlaşmasına kömək edir.

Təkliflər: İctimaiyyət Ombudsmana asanlıqla müraciət edə bilməlidir, ona görə də quruma müraciət edərkən mümkün qədər formal şərtlərdən qaçmaq lazımdır. Ombudsman vətəndaşlara yaxın olduğu dərəcədə xalqın problemlərinin həllini daha asan tapa biləcək və buna görə də üzərinə düşən vəzifələri daha səmərəli yerinə yetirə biləcək. Bu, qurumla məhkəmə nəzarəti arasındakı ən mühüm

fərqlərdən biridir. Məhkəmə nəzarəti bahalı, ləng və ədalətlilik prinsiplərindən uzaq ola bilər, halbuki Ombudsman nəzarəti ucuz, tez və ədalətlilik prinsiplərinə uyğun fəaliyyət göstərir.

Ombudsman təsisatlarının sanksiyalar tətbiq etmək səlahiyyəti yoxdur, ona görə də qurumun qərarları məcburi deyil. Ombudsman təsisatının ən mühüm səlahiyyəti parlamentin dəstəyi, ən əsası isə güclü ictimai dəstəyidir. Ombudsman institutu demokratik strukturlarını tamamlamış və xalqın idarəçilikdə birbaşa söz sahibi olduğu ölkələrdə çox təsirli bir qurumdur.

Bəzi ölkələr Ombudsmana cinayət və intizam araşdırmaları açmaq, məhkəmə və inzibati məhkəmələrə və konstitusiya məhkəməsinə müraciət etmək hüququ verib. Amma bu üsullara çox da üstünlük verilmir.

Ombudsmana ekspertiza və zəruri hallarda araşdırma ilə bağlı hər cür hüquqi dəstəyin göstərilməlidir. Onun iş prosedurlarında çevikliyi Ombudsmanın funksionallığını gücləndirir. Ombudsman rəhbərlikdən irəli gələn şikayətlərin ədalətli həllində faydalı hesab etdiyi bütün üsullardan istifadə etmək imkanına malik olmalıdır.

**ƏDƏBIYYAT SIYAHISI**

1. “Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanunu, Bakı şəhəri, 28 dekabr 2001-ci il, № 246-IIKQ.
2. Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili Ombudsman
https://ombudsman.az/ (Sayta giriş tarixi:30.03.2024)
3. Çeliksoy, E., & Bayan, B. (2020). Genel ve Özel Amaçlı Ombudsmanlık Örnekleri: İngiltere ve Türkiye. Uluslararası Yönetim Akademisi Dergisi, 3 (1), 92-103.
https://dergipark.org.tr/tr/download/article-file/1108415
4. Önen, M., & Engin, S. (2019). Birleşik Krallık’ta Cezaevi Ombudsmanlığı: Türkiye’ye Uygulanabilirliği. Ombudsman akademik, 5 (10), 15-37.
https://dergipark.org.tr/tr/download/article-file/769595
5. Şantay Baykut, S. (2019). İnsan Haklarının Korunması Açısından Ceza İnfaz Kurumları Ve Tutukevleri İzleme Kurulları (Yüksek lisans tezi). Trakya Üniversitesi Sosyal Bilimler Enstitüsü, Edirne.
https://dspace.trakya.edu.tr/xmlui/bitstream/handle/trakya/4992/0164299.pdf?sequence=1&isAllowed=y

# AZƏRBAYCAN DÖVLƏT QULLUĞUNDA ETIKA: PROBLEMLƏR, IRƏLILƏYIŞLƏR VƏ GƏLƏCƏK PERSPEKTIVLƏR

**GÜLHANƏ ƏSKƏROVA**
Bakı Mühəndsilik Universiteti
Dövlət strukturlarında menecment
*geskerova1@std.beu.edu.az*
BAKI, AZƏRBAYCAN

**XÜLASƏ**

Azərbaycanda dövlət idarəçiliyində etika ölkənin demokratikləşmə prosesi və sosial inkişafı üçün olduqca əhəmiyyətli məsələdir. Bununla belə, korrupsiya, rüşvətxorluq, ədalətsizlik və şəffaflığın olmaması kimi problemlər uzun müddətdir ki, davam edir və dövlət qurumlarının səmərəliliyinə və sosial etimada mənfi təsir edir. Son illər Azərbaycan hökuməti dövlət idarəçiliyində etika sahəsində müəyyən irəliləyişlər əldə edib və hüquqi tənzimləmələr, institusional islahatlar və sosial maarifləndirmə işləri ilə bu sahədə addımlar atıb. Bunlara baxmayaraq, hələ çox iş görülməlidir. Gələcəkdə daha effektiv nəzarət mexanizmlərinin yaradılması, hüquqi tənzimləmələrin gücləndirilməsi, dövlət məmurlarının təlimi və sosial iştirakçılığın artırılması kimi tədbirlər Azərbaycanda dövlət idarəçiliyində etik standartların təkmilləşdirilməsinə, daha ədalətli, şəffaf və hesabatlı sistemin yaradılmasına kömək edə bilər.

**AÇAR SÖZLƏR: Etika, dövlət qulluğunda etika, etik problemlər**
**KEY WORDS: Ethics, ethics in public service, ethical problems**

## GIRIŞ

Azərbaycan keçmişdən bu günə qədər dövlət idarəçiliyi sahəsində ciddi çətinliklərlə üzləşib və bu çətinliklər ölkənin inkişafına, demokratikləşmə prosesinə öz təsirini göstərib. Dövlət idarəçiliyində etik prinsiplərin pozulması, ədalətsizlik, şəffaflığın olmaması və korrupsiya kimi problemlər Azərbaycanın dövlət institutlarının səmərəliliyinə və sosial etimadın səviyyəsinə mənfi təsir göstərib. Bu kontekstdə Azərbaycanda dövlət idarəçiliyində etika məsələsi son illər daha çox əhəmiyyət kəsb edir.

Dövlət idarəçiliyində etika cəmiyyətin etimadının təmin edilməsində, qurumların hesabatlılığının artırılmasında və demokratik cəmiyyətin əsaslarının qurulmasında həyati əhəmiyyət kəsb edir. Bununla belə, Azərbaycanda dövlət idarəçiliyində etik pozuntular çoxdan mövcud olan və dərin kök salmış problemdir. Korrupsiya, qohumbazlıq, rüşvətxorluq, vəzifə səlahiyyətlərindən sui-istifadə və resurslardan sui-istifadə kimi qeyri-etik davranışlar cəmiyyətin dövlət qurumlarına inamını sarsıtmış, ölkənin iqtisadi və sosial inkişafına mənfi təsir göstərmişdir.

Son illər Azərbaycanda dövlət idarəçiliyində etika sahəsində müəyyən irəliləyişlər əldə olunub. Hökumət hüquqi tənzimləmələr, institusional islahatlar və sosial maarifləndirmə səyləri vasitəsilə etik standartların təkmilləşdirilməsi istiqamətində addımlar atmışdır. Bu irəliləyişlər Azərbaycanın dövlət idarəçiliyində etika sahəsində gələcək üçün vədlər verir.

Bu məqalədə Azərbaycan dövlət qulluğunda etika ilə bağlı mövcud vəziyyəti təhlil edəcəyik, qarşıya çıxan problemlər və bu problemlərin aradan qaldırılması üçün təkliflər müzakirə olunacaq, dövlət qulluğunda etika baxımından ölkənin gələcək perspektivlərini dəyərləndirəcəyik. Əsas məqsəd Azərbaycanda daha ədalətli, şəffaf və hesabatlı dövlət idarəçiliyi sistemi yaratmaq üçün nələrin mümkün olduğunu başa düşməkdir.

## TƏDQİQAT METODU

### Etika və dövlət qulluğunda etika anlayişlari

Etika anlayışı yunanca “xarakter, davranış, adət” mənasını verən “ethos” sözündən götürülmüşdür və fəlsəfənin əxlaqi dəyərləri araşdıran alt qolu kimi müəyyən edilmişdir. İnsan münasibətlərinin əsasını təşkil edən dəyərlər, norma və davranışlarla bağlı doğru və ya yanlış meyarlara “etika” deyilir (Altun, 2013). Etika insanların bir-biri ilə münasibətlərini və öz hərəkətlərini qiymətləndirməyə imkan verən qiymətləndirmə və davranış normalarıdır. Bunlar bir hərəkəti yerinə yetirərkən və ya qərar qəbul etmə prosesində nələrin edilməli və ya edilməməli olduğunu ifadə edən dəyişkən norma sistemləridir. Etika universal əsaslı davranış qaydalarıdır. Etika əxlaqi vəzifə və öhdəlikləri təyin etməkdə, bir əməlin necə olması lazım olduğunu göstərməkdə və yaxşını pisdən ayırmaqda yol göstərir (Çolak, 2021).

Dövlət idarəçiliyində etika, dövlət idarəçilərinin qərar qəbul edərkən və dövlət xidmətlərini həyata keçirərkən riayət etməli olduqları qərəzsizlik, dürüstlük, sosial ədalət, şəffaflıq, hesabatlılıq və ictimai maraq kimi mənəvi prinsiplər və dəyərlər toplusudur. Bu prinsipləri və dəyərləri qəbul edən və onları qərarlarında və əməliyyatlarında tətbiq edən idarəetmə "etik idarəetmə" adlanır. Etik dəyərlərin mənimsənilməsi korrupsiyaya aparan yolların qarşısının alınmasında, ictimaiyyətin dövlət qurumlarına, siyasətə və məhkəməyə inamının təmin edilməsində, dolayısı ilə siyasi və inzibati sistemin rahat işləməsində çox mühüm rol oynayır (Altun, 2013).

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı ölkələrində dövlət idarəçiliyi etikası dövlətə və onun institutlarına ictimai etimadın təmin edilməsində əsas element hesab olunur. Çünki dövlət idarəçiliyi etikası dövlətin fəaliyyətinin sağlam şəkildə davam etdiyini və idarəetmənin üzərinə düşən vəzifəni uğurla yerinə yetirdiyini göstərir. Bu səbəbdən də dövlət idarəçiliyində etikanın idarəetmənin müvəffəqiyyətində və davamlılığında mühüm rol oynadığı düşünülür (Albayrak, 2021).

Dövlət idarəçiliyində etika vətəndaşın dövlətə, dövlət qurumlarına və dövlət məmurlarına inamının yaradılmasının ən mühüm elementlərindən biri kimi ifadə olunur. O, həmçinin dövlət idarəçiliyində məmurların qərarlarını və davranışlarını qiymətləndirmək üçün əsas meyar təşkil edir. Bununla da ictimaiyyətdə onların maraqlarının qorunduğuna və idarəetmə fəaliyyətinin düzgün həyata keçirildiyinə əminlik yaranır (Çolak, 2021).

Dövlət iadrəetməsində etika, etibarlılıq, ədalət və hesabatlılığın əsasını təşkil edir. Etika dövlət məmurlarının düzgün və ədalətli qərarlar qəbul etmələrini, resurslardan düzgün istifadə etmələrini, ictimai etimadı təmin etmək və cəmiyyətin rifahını yüksəltmək məqsədi daşıyır. Bundan əlavə, etik prinsiplərə məhəl qoymamaq korrupsiya, rüşvətxorluq və ədalətsizlik kimi problemlərə gətirib çıxara

bilər ki, bu da dövlət qurumlarının etibarlılığına və sosial sabitliyə təhlükə yaradır. Ona görə də dövlət idarəçiliyində etik prinsiplərə əməl olunması sağlam demokratik prosesin və davamlı cəmiyyətin əsas şərtidir.

**Azərbaycan dövlət qulluğunda etik problemlər**

Qeyri-etik davranış dedikdə, cəmiyyətlərin birgə yaşaya bilməsi üçün zamanla formalaşmış, ümumi qəbul edilmiş norma, qayda və prinsipləri pozaraq baş verən, ümumi cəmiyyət tərəfindən qəbul edilməyən və mənfi qarşılanan davranışlar başa düşülür (Altun, 2013). Dövlət idarəçiliyində ən çox rast gəlinən qeyri-etik davranışlara haqsız olaraq əmlak əldə etmək, hədə-qorxu ilə pul tələb etmə, mənimsəmə, qaçaqmalçılıq, rəsmi tenderlərin saxtalaşdırılması, vəzifə borcunu yerinə yetirməkdən yayınma, vəzifə səlahiyyətlərindən sui-istifadə daxildir. Hədə-qorxu, qohumbazlıq və ayrı-seçkilik, səhlənkarlıq, yaltaqlıq, təhqir və s. kimi qeyri-etik davranışlar da geniş yayılmışdır. Lakin dövlət idarəçiliyində qeyri-etik davranışlardan danışarkən çoxlarının ağlına "korrupsiya" və korrupsiyanın ən çox yayılan forması olan "rüşvətxorluq" gəlir. Bu səbəbdən ədəbiyyatda korrupsiya və rüşvətxorluqdan daha geniş bəhs edildiyi görünür (Özdemir, 2008).

Korrupsiya, dövlət məmurunun şəxsi maraqları üçün vəzifə səlahiyyətlərindən sui-istifadə etməsidir. Dövlət idarəçiliyində ən çox rast gəlinən korrupsiya növü rüşvətxorluqdur. Rüşvətxorluq inkişaf etmiş ölkələrdən daha çox inkişaf etməmiş və inkişaf etməkdə olan ölkələrdə baş verir. Rüşvət ümumiyyətlə zərərdən yayınmaq, fayda əldə etmək və ya işi sürətləndirmək üçün verilir. Ona görə də rüşvət həm də insanın bürokratik mexanizmdən öz xeyrinə istifadə etmə vasitəsi kimi qəbul edilir (Özdemir, 2008).

Dövlət idarəçiliyini qeyri-etik problemlərdən təmizləmək, dövlət resurslarının israf edilməsinin qarşısını almaq, demokratik və vətəndaşlar tərəfindən qanuni görünən dövlət idarələrinin yaradılması yalnız dövlət qurumlarının etik prinsiplər və standartlar çərçivəsində yenidən qurulması ilə mümkündür (Albayrak, 2021).

Azərbaycanda dövlət idarəçiliyində etik problemlər kifayət qədər müxtəlifdir və çox vaxt köklü və sistemli struktura malikdir. Bu problemlərdən biri olan korrupsiya dövlət resurslarından sui-istifadə ilə bağlıdır və dövlət qurumları arasında geniş şəkildə müşahidə olunur. Rüşvətxorluq və qohumbazlıq dövlət məmurları arasında ümumi etik problemdir və ədalətli rəqabətə mane olur. Bundan əlavə, şəffaflığın olmaması və hesabatlılığın zəifliyi ictimaiyyətin dövlət idarəçiliyinə inamını sarsıdır və demokratik proseslərin fəaliyyətinə mənfi təsir göstərir.

Azərbaycan dövlət qulluğunda mövcud olan əsas etik probelmlər aşağıdakılardır:

Korrupsiya: Azərbaycanda dövlət idarəçiliyində ən çox rast gəlinən problemlərdən biri korrupsiyadır. Rüşvətxorluq, rüşvət almaq və vermək, dövlət tenderlərində haqsız rəqabət və resurslardan sui-istifadə kimi korrupsiya formaları dövlət qurumlarında yaranan əsas problemlərdir. Bu vəziyyət resursların ədalətsiz bölüşdürülməsinə, ictimai inamın zəifləməsinə və iqtisadi resurslardan səmərəsiz istifadəyə gətirib çıxarır. Beynəlxalq Şəffaflıq (Transparecy İnternational) təşkilatının 2023-cü il üçün hazırladığı Korrupsiyanın Qavranması İndeksinə (Corruption Perceptions İndex) əsasən Azərbaycan 23 balla 180 ölkə arasından 154-cü yeri tutmuşdur. Həmçinin iki ildir ki, bu rəqəm son illərin ən aşağı göstəricisi kimi qeydə alınıb (4). Hesabata əsasən korrupsiyanın ən geniş yayılmış növləri bundan əvvəlki illərdə olduğu kimi rüşvət, mənimsəmə və qohumbazlıqdır.

İctimai resurslardan sui-istifadə: Müəyyən sektorlarda resursların effektiv və səmərəli idarə olunmadığı görülür. Bu, dövlət xidmətlərinin keyfiyyətini aşağı salır və iqtisadi inkişafa mənfi təsir göstərir.

Şəffaflıq: Dövlət idarəçiliyində qərarların qəbulu prosesində şəffaflığın olmaması ciddi problemdir. Qərar qəbulu proseslərinin məxfiliyi dövlət resurslarından istifadədə hesabatlılığın olmaması ilə nəticələnir. Bu vəziyyət dövlət qurumlarının fəaliyyətinin nəzarətini çətinləşdirir və cəmiyyətin informasiyaya çıxışını məhdudlaşdırır.

Hesabatlılıq: Dövlət məmurları tez-tez hesabat verməkdən yayınırlar və ya verilən hesabatlar həqiqəti əks etdirmir. Hesabatlılıq standartları aşağıdır, çünki dövlət məmurları qəbul etdikləri qərarlara adekvat izahat vermirlər, səlahiyyətləri müddətində lazımi şəkildə nəzarət etmirlər və yol verdiyi səhvlərə görə məsuliyyət daşımırlar.

İctimai etimad: Dövlət qurumlarında məmurların vətəndaşlara qarşı qeyri-etik davranması nəticədə vətəndaşın dövlət qurumuna və dövlətə olan etimadının azalmasına səbəb olur.

Təhsil və maarifləndirmə: Azərbaycanda dövlət idarəçiliyində etik problemlərlə mübarizədə təhsil və maarifləndirmə işinin olmaması mühüm maneədir. Dövlət məmurlarının etik dəyərlərə və qaydalara uyğun hərəkət etməsi və qərar qəbul etməsi üçün lazımi biliklərlə bağlı təlim almaması və ya cəmiyyətin etik məsələlərlə bağlı məlumatlılığının aşağı olması problemlərin həllini çətinləşdirir. "Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019−2025-ci illər üçün Strategiya"da etik davranış qaydalarının tətbiqinin təkmilləşdirilməsi üçün etik qaydalar üzrə mütəmadi və davamlı təlimlər keçirilməli olduğu qeyd edilib. Amma bununla bağlı kifayət qədər təlim keçirilməyib və ya keçirilən təlimlər effektiv və məqsədəuyğun olmayıb.

Qanunda boşluqlar: Etika və korrupsiya ilə bağlı mövcud qanunların zəif olması əsas problemlərdən biridir. Həmçinin qanunların tətbiqi və tətbiqinə nəzarətlə bağlı da problemlər mövcuddur. Dövlət qulluğuna dair qanunvericiliyin təkmilləşdirilməsi və icrasına nəzarət "Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019−2025-ci illər üçün Strategiya"da əsas istiqamətlərdən biri kimi müəyyən edilmişdir. Burada yaranan problemlərin həlli üçün dövlət qulluğu sahəsində vahid qanunvericilik aktının – Azərbaycan Respublikasının Dövlət Qulluğu Məcəlləsinin qəbul edilməsi zəruri olması qeyd olunub, lakin bu barədə kifayət qədər effektiv addımlar atılmayıb.

Azərbaycanda dövlət qulluğunda etika ilə bağlı son illərdən həyata keçirilən ən böyük irəliləyiş olaraq "Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019−2025-ci illər üçün Strategiya"nın qəbul edilməsini göstərə bilərik. Burada Dövlət qulluqçularının etik davranış qaydalarının tətbiqinin təkmilləşdirilməsi əsas istiqamətlərdən biri kimi müəyyən edilmiş və müvafiq tədbirlərin həyata keçirilməsi planlaşdırılmışdır. Bunla belə yuxarıda qeyd edildiyi kimi planlaşdırılan tədbirlər səmərəli şəkildə həyata keçirilməmişdir.

Beləkilə, bütün bunları nəzərə alaraq Azərbaycanda dövlət qulluğunda etikanın tətbiqini təkmilləşdirmək üçün aşağıdakı tədbirlər görülə bilər:

1. Təlim və maarifləndirmə tədbirlərinin artırılması: Dövlət məmurları, qeyri-hökumət təşkilatları və ümumilikdə cəmiyyət etik dəyərlər haqqında təlim keçməli və maarifləndirilməlidir. Etika üzrə təlim proqramlarının yayılması və sosial məlumatlılığın artırılması üçün kampaniyaların dəstəklənməsi dövlət idarəçiliyində etik davranışın təşviqinə və etik pozuntuların azaldılmasına kömək edəcəkdir.

2. Şəffaflıq və hesabatlılığın gücləndirilməsi: Dövlət qurumlarının fəaliyyətinin ictimaiyyətə açıqlanması və dövlət resurslarından istifadənin monitorinqi və nəzarəti daha səmərəli mexanizmlərinin yaradılması vacibdir.

3. Nəzarət mexanizimin qurulması: Dövlət qulluqçularının etik qaydalara uyğun hərəkət etmələrinin yoxlanılması üçün müstəqil xarici nəzarət mexanizminin qurulması daha effektiv ola bilər. Həmçinin vətəndaşlar vasitəsilə sosial nəzarətin həyata keçirilməsi ilə də səmərəli nəticələr əldə edilə bilər.

4. Mükafatlandırma və cəza mexanizmi: Dövlət qulluqçularına onların etika qaydalara riayət etmələrinə uyğun olaraq müvafiq cəza və mükafatlandırma mexanizminin tətbiqi məqsədə uyğun ola bilər. Uğurlu etik hərəkətlərin mükafatlandırılması və etik pozuntuların cəzalandırılması dövlət məmurları arasında etik standartların daha çox mənimsənilməsinə kömək edə bilər.

5. Vətəndaş şikayətlərinin dinlənməsi: Vətəndaşların qarşılaşdıqları qeyri-etik davranışlarla bağlı şikayətlərinin dinlənilməsi də etik qaydların tətbiqini daha səmərəli hala gətirəcəkdir.

**NƏTICƏ**

Nəticədə Azərbaycanda dövlət idarəçiliyində etik problemlər ölkənin demokratikləşmə prosesinə və sosial rifahına mənfi təsir göstərə bilər. Lakin bu problemlərlə səmərəli mübarizə aparmaq, daha sağlam dövlət idarəetmə sistemi yaratmaq mümkündür.

Təklif olunan müxtəlif addımların həyata keçirilməsi ilə Azərbaycanda dövlət idarəçiliyində etik standartlar gücləndirilə, şəffaflıq və hesabatlılıq artırıla, ictimai etimadı təmin edə bilər. Bu məqsədlərə nail olmaq üçün daha güclü hüquqi tənzimləmələr və institusional islahatlar, eləcə də təlim, nəzarət, iştirak və texnoloji həllərdən səmərəli istifadə vacibdir.

Gələcəkdə dövlət idarəçiliyində etik problemlərlə mübarizədə qətiyyətli davranılması və Dövlət qulluğu strategiyasında nəzərdə tutulan məqsədlərin effektiv şəkildə həyata keçirilməsi ilə dövlət qulluğunda etikanın inkişafına nail oluna bilər. Bu da nəticədə yaxşı idarəetmə sisteminin yaradılmasına və dövlət xidmətlərinin effektiv göstərilməsinə müsbət təsir edəcəkdir.

**ƏDƏBIYYAT SIYAHISI**

1. “Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019−2025-ci illər üçün Strategiya”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı https://e-qanun.az/framework/40748
2. Albayrak, H. (2021). Kamu Görevlileri Ve Etik İlkeler: Türkiye Üzerine Bir Değerlendirme. Malatya Turgut Özal Üniversitesi İşletme ve Yönetimi Bilimleri Dergisi, 2(2), 234-247.
3. Altun, M. (2013). Kamu Görevlileri Etik Kurulu Kararları Işığında Kamuda Görülen Etik Dışı Davranışlar Ve Yolsuzluklar. Sayıştay Dergisi, 91, 33-55.
4. Beynəlxalq Şəffaflıq Təşkilatı, Korrupsiyanın Qavranması İndeksi. https://www.transparency.org/en/cpi/2023/index/aze
5. Çolak, İ. (2021). Kamu Etiği Ve Kamuda Uyulması Beklenen Etik Davranış Kuralları. Avrasya Sosyal ve Ekonomi Araştırmaları Dergisi, 8 (4), 404-419. https://dergipark.org.tr/en/download/article-file/2019699
6. Dövlət qulluqçularının etik davranış qaydaları haqqında Azərbaycan Respublikasının Qanunu https://e-qanun.az/framework/13685
7. Özdemir, M. (2008). Kamu Yönetiminde Etik. ZKÜ Sosyal Bilimler Dergisi, 4 (7), 179-195. https://dergipark.org.tr/en/download/article-file/1145044

# QLOBAL ƏRZAQ BÖHRANI VƏ ONDAN ÇIXIŞ YOLLARI

**RƏNA İBAYEVA**
Bitki Mühafizə və Texniki Bitkilər Elmi Tədqiqat İnstitutu
sabanzaderena001@gmail.com
GƏNCƏ, AZƏRBAYCAN

**XÜLASƏ**

Bu gün beynəlxalq ictimaiyyətin qarşısında duran əsas və həlli demək olar ki, mümkün olmayan problemlərdən biri ərzaq problemidir. Son bir neçə onillikdə müşahidə olunan sürətli texnoloji tərəqqiyə baxmayaraq, dünya əhalisinin ərzaqla fasiləsiz təmin edilməsi hələ də problem olaraq qalır. Qlobal ərzaq problemi bir sıra aspektlərin uyğunsuzluğu ilə xarakterizə olunur. Belə ki, bir tərəfdən planetin regionları üzrə ərzaq istehsalının həcmi, keyfiyyəti və səmərəliliyi qeyri-bərabər olasa da digər tərəfdən bütövlükdə ərzaq istehsalının miqyası formal olaraq dünya əhalisinin ərzaq tələbatına uyğundur. Bunları nəzərə alaraq bu problemin dərindən araşdırılmasına böyük ehtiyac var. Məqalədə qlobal ərzaq böhranı problemini - bütün dünyada müşahidə olunan qiymətlərin sürətli artımı və ərzaq qıtlığı araşdırılır.

Qlobal ərzaq problemi dedikdə dünya əhalisinin ərzaq təminatının olmaması başa düşülür. Bu, əsasən dünyanın üçüncü ölkələri kimi tanıdığımız ən yoxsul ölkələrdə özünü daha qabarıq göstərir və onların əhalisi artdıqca vəziyyət daha da pisləşir. Bu gün ərzaq çatışmazlığından əziyyət çəkən insanların ümumi sayı 1 milyarddan artıqdır. Nəticə ondan ibarətdir ki, əhalinin artımı kənd təsərrüfatı istehsalının artımını və onun texnologiyalarının inkişafını üstələyir. Bununla belə, bir fikir var ki, istifadə olunan əkinçilik və heyvandarlıq texnologiyalarının indiki inkişaf səviyyəsi ilə belə, mövcud resurslardan səmərəli istifadə və faydaların ədalətli bölüşdürülməsi sistemi ilə 10 milyarddan çox insanı qidalandırmaq mümkün olardı.

**AÇAR SÖZLƏR: Aqrar sənaye kompleksi, kənd təsərrüfati, ərzaq təhlükəsizliyi, ərzaq problemi, inkişaf.**

**KEY WORDS: Agro-industrial complex, agriculture, rural food, food problem, development**

**GIRIŞ**

Dünya iqtisadiyyatının inkişafının mərkəzi xəttini qloballaşma prosesi təşkil edir. Bu, insanların ehtiyaclarını ödəmək üçün əmtəə və xidmət istehsalının səmərəliliyini artırılması və istehsalda istifadə olunan məhdud resursların bölüşdürülməsinin idarə edilməsinin mərkəzləşdirilməsi baxımdan əhəmiyyətlidir. Digər şərtlər sabit qaldığı halda, mərkəzləşdirilmiş idarəetmə qeyri-mərkəz idarəetmədən daha effektiv nəticələrin əldə edilməsində imkan verir. Odur ki, qloballaşma iqtisadiyyatın inkişafı üçün təbii bir istiqamət kimi görünür. Qloballaşma eyni zamanda, istehsal vasitələri və əmək məhsulları üzərində inhisarçı mühitinin aradan qalxmasına, bu əsasda milli iqtisadiyyatın beynəlxalq iqtisadiyyata inteqrasiyasını sürətləndirir. Xüsusilə, bu, ərzaq təhlükəsizliyinin təmin edilməsi proseslərində özünü göstərir. Əksər ölkələrdə, əsasəndə inkişaf etməkdə olanlarda onun səviyyəsinin aşağı düşməsi gələcəkdə ciddi ərzaq böhranlarına səbəb ola bilər. Odur ki, qloballaşmadan söz edərkən, ayrı-ayrı dövlətlərin ərzaq təhlükəsizliyinin qorunub saxlanılması əsas diqqət mərkəzində saxlanılır. Tomas Maltus hələ 1798-ci ildə ilk dəfə bu problemin əhəmiyyətini öz əsərində əsaslandırmışdır. T.Maltus hesab edirdi ki, əhali həndəsi proqressiya, ərzaq istehsalı isə arifmetik olaraq artır və buda bir çox sosial bəlaların - yoxsulluğa, aclığa, epidemiyalara, müharibələrı səbəb olur (Maltus, 1998).

**TƏDQIQAT METODU**

Məqalə qlobal ərzaq böhranı ilə əlaqədar yeni el¬mi-tədqiqat materiallarından ibarətdir. Tədqiqat işində ərzaq təhlükəsizliyi sahəsində problemlər təhlil edilmiş və onların həlli strategiyasının prioritet istiqamətləri müəyyənləşdirilmişdir.

Tədqiqat işində qlobal ərzaq böhranı problemi - bütün dünyada müşahidə olunan qiymətlərin sürətli artımı və ərzaq qıtlığı araşdırılır. Ərzaq qıtlığı və ərzaq təhlükəsizliyi problemi bir çox yerli və xarici alimlərin tədqiqatlarının diqqət mərkəzində olmuşdur, belə ki, yerli alimlərdən A.A.Nadirovu, Z.Ə.Səmədzadəni, V.H.Abbasovu, Ə.M.Hacızadəni, M.A.Mehrəliyevi, İ.H.Alıyevi, R.B.Əliyevi, R.Ə.Balayevi, R.H.Məmmədovu, S.Y.Göyçaylını, Z.Ə.Məmmədovu, Ə.Q.Əlirzayevi, İ.Ş.Qarayevi, A.T.Əhmədovu, B.X.Ataşovu, A.Vəliyevi, R.R.Mustafayevanı vurğulamaq olar. Xarici alimlərindən isə bu məsələyə R.Ş.Abakarova, A.Budris, T.N.Belova, A.B.Qordeev, N.V.Klimova və başqaları öz əsərlərində diqqət yetirmişdir.

Ərzaq təhlükəsiziliyi məsələləri uzun illərdir bir çox alimlərin diqqət mərkəzində olmuşdur. Ərzaq təhlükəsizliyi məsələləri üzrə tanınmış rusiyalı ekspert E.Kovalevin nöqteyi-nəzərindən qlobal ərzaq problemi ikili xarakter daşıyır. Birincisi, sosial-iqtisadi, ərzaqın istehsalı və paylanması üsulu ilə bağlı, aclıq və ərzaq çatışmazlığı da daxil olmaqla, onların paylanması və istehlakının differensiallaşdırılmasını əvvəlcədən müəyyən edən və ikincisi ərzaq istehsalı üçün təbii ehtiyatların məhdudluğunu əks etdirən qlobal problemlər (Kovalev, 2005).

Qarşıya qoyulan məqsədə çatmaq üçün aşağıdakı vəzifələr müəyyənləşdirilmiş və yerinə yetirilmişdir:

- Ərzaq problemi ilə milli ərzaq təhlükəsizliyi arasında əlaqənin müəyyən edilməsinə nəzəri yanaşmaların əsaslandırılması;
- Qlobal aqrar-sənaye kompleksinin xüsusiyyətləri və inkişaf meyllərinin təhlil edilməsi;
- Dünya aqrar-sənaye kompleksinin hazırkı vəziyyəti və onun inkişaf meyllərinin müəyyən edilməsi;
- Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) qlobal ərzaq probleminin tənzimlənməsindəki fəaliyyətinin araşdırılması;
- Qlobal ərzaq probleminin kəskinləşməsinin səbəbləri, mövcud vəziyyəti və nəticələrinin öyrənilməsi;
- Ərzaq təminatının tənzimlənməsi və aqrar-sənaye kompleksinin islahatları sahəsində xarici təcrübənin ümumiləşdirilməsi. Nəticə ondan ibarətdir ki, əhalinin artımı kənd təsərrüfatı istehsalının artımını və onun texnologiyalarının inkişafını üstələyir. Bununla belə, bir fikir var ki, istifadə olunan əkinçilik və heyvandarlıq texnologiyalarının indiki inkişaf səviyyəsi ilə belə, mövcud resurslardan səmərəli istifadə və faydaların ədalətli bölüşdürülməsi sistemi ilə 10 milyarddan çox insanı qidalandırmaq mümkün olardı.

Hazırda dünya əhalisinin tələbatını ödəmək üçün yetərli qədər istehsal edildiyini nəzərə alsaq, onda ərzaq problemi onun qeyri-rasional bölüşüdürülməsi ilə bağlı olduğunu demək olar (Mustafayeva, 2015). Aydındır ki, qloballaşma kənd təsərrüfatı proseslərinin idarə edilməsinin

qlobal səviyyədə bir sıra inkişaf etmiş ölkələrdə cəmləşməsinə gətirib çıxarır: ABŞ, Avropa İttifaqı ölkələrində. Onların rəhbərliyi altında bazarlar, əmtəə birjaları və digər ərzaq təşkilatları şəklində böyük beynəlxalq birliklər yaradılmışdır. Bu təşkilatlar dünyada ərzaq strukturuna və kənd təsərrüfatı məhsullarının istehsalından tutmuş marketinqinə qədər baş verən proseslərə ümumi nəzarət etmək imkanına malikdir. Son vaxtlar yaradılan beynəlxalq birliklər artıq ticarət mərkəzlərinə çevrilib, burada bütün iştirakçıların bərabər mövqeyi bütün alıcılar və satıcılar arasında maksimum rəqabət yaradır və bu da öz növbəsində dünya bazarında qiymətlərin formalaşmasına təsir göstərir. Digər tərəfdən dünyada mühüm ticarət iqtisadi göstəriciləri super və hipermarketlərin payına düşür. Əhalinin müəyyən qədər alıcılıq qabiliyyətinə malik olduğu bütün şəhərlərdə, regionlarda öz filiallarını inanılmaz sürətlə genişləndirilər. Bununla da qloballaşmanın təsirindən irəli gələrək, yerli istehsalçı özünü tamamilə qeyri-bərabər qarşıdurmada tapır və tədricən bazarı tərk edir ki, bu da əslində xarici təchizatçılar tərəfindən arzuolunan haldır. Nəticədə-yerli istehsalın məhv olması, ərzaq bazarının xarici monopoliyasına gətirib çıxarır ki, bu da ölkələrin ərzaq təhlükəsizliyinə ciddi təhdid yaradır. Ölkəmizdə bir sıra ərzaq məhsulları üzrə idxaldan asılılıq artıq 40-70% təşkil edir. Bu da ərzaq təhlükəsizliyinin təmin edilməsi baxımından yüksək göstəricidir. Bu yerli istehsal mexanizminin yetərli səviyyədə qurulmadığını deməyə əsas verir. Məlumdur ki, ərzaq məhsullarının idxalından imtina etmək mümkün deyil. Yerli kənd təsərrüfatı əhalinin müəyyən ərzaq növlərinə olan tələbatını ödəyə bilmir. Daxili bazarda böyük beynəlxalq xarici korporasiyaların, hipermarketlər və fast food şəbəkələrinin, iri ticarət mərkəzlərinin filiallarının sayının artması iqisadi cəhətdən təhdid kimi qiymətləndirilə bilinər. Bu gün beynəlxalq ictimaiyyətin qarşısında duran əsas və ən çətin problemlərdən biri ərzaq təminatı problemidir. Son bir neçə onillikdə müşahidə olunan sürətli texnoloji tərəqqiyə baxmayaraq, dünya əhalisinin fasiləsiz ərzaq təminatı problem olaraq qalır. 2015-ci ildə Birləşmiş Millətlər Təşkilatı 2000-ci ildə müəyyən edilmiş Minilliyin İnkişaf Məqsədlərinə nail olunmasını ümumiləşdirən hesabat təqdim etdi. Aclıq, yoxsulluq, iqlim dəyişikliyi ilə mübarizə və təmiz su ilə təmin etmək kimi məqsədlərə nail olmaq üçün qlobal səfərbərlik dünyada davamlı inkişafa nail olmaq yolunda ən mühüm addımlardan birinə çevrilmişdir. Minilliyin Bəyannaməsindən keçən 15 il ərzində bir milyarddan çox insan ifrat yoxsulluqdan xilas edilib və dünya əhalisinin təmiz içməli su istehlak edən nisbəti 76%-dən 90%-ə yüksəlib. İnkişaf etməkdə olan ölkələrdə kifayət qədər qidalanmayan insanların nisbəti 15 il ərzində demək olar ki, yarıya enmişdir (İ.D. Abbasov 2013).

Beləliklə, planetin əhalisinin kifayət qədər ərzaq təminatı problemi hətta əksər inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrin əhalisinin ərzaq istehsalını problem hesab etmədiyi bir dövrdə də kifayət qədər aktual məsələdir: qida texnologiyası layihələri hətta Aİ kimi ölkələrdə də peyda olur. ABŞ, Böyük Britaniya, Rusiya və İsrail, ərzaq almaq üçün sərf olunan səyləri minimuma endirir.

Bununla belə, BMT-nin məlumatına görə, hazırda dünya əhalisinin təxminən onda biri kifayət qədər qidalanmır. Buna ilk növbədə pandemiya, eləcə də iqlim dəyişikliyi, planetin mövcud resurslarından səmərəsiz istifadə və bir sıra digər səbəblər səbəb olur. 2022-ci il fevralın 24-də Rusiyanın Ukraynaya qarşı müharibənin başlamasından sonra yaranan şərait vəziyyəti daha da pisləşdirib. Fakt budur ki, Rusiya və Ukrayna dünya bazarına ən çox taxıl ixrac edən ölkələrdir. ABŞ Kənd Təsərrüfatı Nazirliyinin son məlumatlarına görə, Rusiya və Ukrayna birlikdə qlobal buğda ixrac bazarının təxminən 29%-nə nəzarət edirlər (USDA). Bu, son dərəcə vacibdir, çünki buğda da daxil olmaqla, dünya əmtəə qiymətlərini müəyyən edən ixrac mallarının alqı-satqısıdır. Rusiya dənizi vasitəsilə ildə 15 milyon tona qədər buğda ixrac edilir ki, bu da ixracatın demək olar ki, yarısıdır (Makeev, 2022). Ukrayna müharibə səbəbindən əvvəlki qədər taxıl istehsal edə bilmir, ərazilərin minalanması əkin və biçin prosesini mülki əhali üçün son dərəcə təhlükəli prosesə çevirir. Taxıl ixracı ayda 500 min tonla məhdudlaşdırılırsa, müharibə başlamazdan əvvəl ixrac 500 milyon ton təşkil edirdi (Qordiçuk D, 2022). Beləliklə, dünyada ərzaq təhlükəsizliyi təhdid altındadır. Beynəlxalq biznesin vəzifəsi böhranın qarşısını almaq və tədarük zəncirlərini qurmaqdır ki, ərzaq bütün ölkələrə münasib qiymətlərlə çatsın. Bununla əlaqədar olaraq, Braziliya şirkətləri vəziyyətə tez reaksiya verdilər. Əvvəllər dünyanın ən böyük buğda idxalçılarından biri olan Braziliya bu ilin mart ayında 800 min ton taxıl ixrac edib ki, bu da 2021-ci ilin eyni ayında göndərilən 45,300 tondan 1,745% çoxdur. Gəlirlərə gəlincə, onun artımı daha da təsir edicidir - 1,995%; 2022-ci ilin mart ayında keçən ilin eyni ayında 12,2 milyon dollardan 245,5 milyon dollar təşkil edib. İlin əvvəlindən gəlir artımı 448,1% təşkil edir. İyul ayında ticarət ilinin sonuna qədər Braziliyadan buğda daşımaları artıq yeni illik rekorda imza atmışdı

**Cədvəl 1.** Ölkələr üzrə taxıl istehsalının həcmi (2021-ci il)

| № | Ölkə | İstehsal olunub (ton) | Dünyadaki payı (%) | Sahəsi ( ar ) | Məhsuldarlıq (S/ar) |
|---|---|---|---|---|---|
| 1. | Çin | 136946000 | 17,8 | 23568400 | 58,1 |
| 2. | Hindistan | 109590000 | 14,2 | 31610000 | 34,7 |
| 3. | Rusiya | 76057258 | 9,9 | 27916725 | 27,2 |
| 4. | ABŞ | 44790360 | 5,8 | 15039490 | 29,8 |
| 5. | Fransa | 36559450 | 4,7 | 5276730 | 69,3 |
| 6. | Ukrayna | 32183300 | 4,2 | 7099400 | 45,3 |
| 7. | Avstraliya | 31922555 | 4,1 | 12643216 | 25,2 |
| 8. | Pakistan | 27464081 | 3,6 | 9168249 | 30,0 |
| 9. | Kanada | 22296100 | 2,9 | 9247000 | 24,1 |
| 10. | Almanya | 21459200 | 2,8 | 2939000 | 73,0 |
| 11. | Türkiyə | 17650000 | 2,3 | 6623061 | 26,6 |
| 12. | Argentina | 17644277 | 2,3 | 6394102 | 27,7 |

Mənbə: FAO

Hindistan şirkətləri də yeni şərtlərə tez uyğunlaşdılar. Əvvəllər yalnız daxili bazarı təmin edirdilər, lakin son vaxtlar ərzaq ixrac etməyə və Asiyaya böyük həcmdə ərzaq satmağa başladılar. Lakin eyni zamanda Hindistan isti və quraqlıq səbəbindən buğda ixracına məhdudiyyətlər elan edib.

**Cədvəl 2.** Taxil ixrac və idxal edən ölkələr (2021-ci il)

| № | Ölkə | İxrac | | İdxal | | YEKUN Min tonn | Dünyadaki hissəsi % |
|---|---|---|---|---|---|---|---|
| | | Min ton | Min dollar | Min ton | Min dollar | | |
| 1 | Rusiya | 27366 | 7301689 | 123 | 49158 | 27243 | 13,6 |
| 2 | Avstraliya | 25563 | 7105524 | 1 | 750 | 25562 | 12,8 |
| 3 | ABŞ | 24014 | 7286461 | 1451 | 402258 | 22563 | 11,3 |
| 4 | Kanada | 21546 | 6636007 | 218 | 59003 | 21328 | 10,7 |
| 5 | Ukrayna | 19395 | 4722745 | 18 | 5388 | 19377 | 9,7 |
| 6 | Fransa | 16091 | 4483928 | 264 | 87482 | 15827 | 7,7 |
| 7 | Argentina | 9485 | 2454059 | 0 | 155 | 9485 | 5,6 |
| 8 | Hindistan | 6091 | 1723431 | 0 | 25 | 6091 | 3,0 |
| 9 | Rumıniya | 6908 | 1800140 | 953 | 255461 | 5955 | 3.0 |
| 10 | Bolqarıstan | 5119 | 1321561 | 50 | 18187 | 5069 | 2,5 |
| 11 | Almanya | 7100 | 1969667 | 3921 | 1091771 | 3179 | 1,6 |
| 12 | Polşa | 3591 | 979272 | 595 | 154001 | 2996 | 1,5 |

Mənbə: FAO

Hindistan ixracı məhdudlaşdırmaq qərarına gələn yeganə ölkə deyil. Serbiya, Şimali Makedoniya, Qazaxıstan və Misir bu il buğda ixracını, digər ölkələr isə xaricə şəkər, bitki yağı və qarğıdalı tədarükünü məhdudlaşdırıb, Rusiya Avrasiya İqtisadi İttifaqına daxil olmayan ölkələrə buğda ixracına məhdudiyyətlər qoyub. Həyata keçirilən tədbirlər dünya ticarətinin 16%-ni əhatə edir və buğdanın dünya qiymətinin yeddi faiz bəndi artmasına səbəb olur ki, bu da ümumi qiymət artımının təxminən altıda birini təşkil edir (Malpass D.) Bir çox başqa ölkələr də bundan nümunə götürə bilər və sonra vəziyyət əsl fəlakətə çevrilmək riski ilə üzləşir.

**Cədvəl 3.** Ölkəllər üzrə taxılın qiyməti (2022)

| № | Ölkə | 1 ton taxılın qiyməti, dol. |
|---|---|---|
| 1 | Argentina | 397 |
| 2 | ABŞ | 385 |
| 3 | Kanada | 371 |
| 4 | Avstraliya | 367 |
| 5 | EC | 332 |
| 6 | Rusiya | 316 |

Mənbə: https://grainrus.com/novosti-kompanii/articles/mirovoe-proizvodstvo-pshenitsy/

Son bir neçə ayda ərzaq məhsullarının bahalaşması, şübhəsiz ki, dünyada vəziyyəti daha da pisləşdirir, lakin bu tendensiya hələ Ukrayna hadisələrindən əvvəl başlayıb. Zərərverici əməliyyatdan əvvəl yüksək yanacaq və elektrik qiymətləri, çoxsaylı quraqlıqlar və Covid-19 pandemiyasının davam edən təsirləri səbəbindən qlobal ərzaq qiymətləri artıq ən yüksək tarixi səviyyələrə çatırdı. Ukraynadakı hadisələr və Rusiyaya qarşı sanksiyalar həqiqətən vəziyyəti daha da pisləşdirdi və mart

ayında qiymətləri daha da rekord səviyyələrə çatdırdı.

Qida problemi son dərəcə genişdir və müəyyən bir uğursuzluq və ya səmərəsizlikdə yatmır. Ərzaq böhranı bir anda bir neçə amildən qaynaqlanır və bu böhranla kompleks şəkildə mübarizə aparmaq lazımdır. Ekspertlər xəbərdarlıq edirlər ki, 2008-ci ildə maliyyə sektorunda yaranmış vəziyyət təkrarlana bilər, lakin bu dəfə fərqli sahədə. Maliyyə çöküşü cəmiyyətin rifahı üçün dağıdıcı nəticələrə səbəb ola bilsə də, qida sisteminin çökməsinin nəticələri cəmiyyətin quruluşuna dağıdıcı təsir göstərə bilər.

Quraqlıq qlobal ərzaq təhlükəsizliyinin qarşısındakı digər maneədir. Quraqlığa, digər şeylərlə yanaşı, dünyanın onilliklər ərzində mübarizə apardığı iqlim dəyişikliyi səbəb olur. İqlim dəyişikliyi birbaşa beynəlxalq biznesə təsir edir.

**NƏTICƏ**

Dünya ərzaq problemi bəşəriyyət üçün qlobal problem kimi qəbul edilir. Qlobal miqyasda, kənd təsərrüfatının inkişafının milyonlarla insanı yoxsulluqdan və ərzaq təhlükəsizliyindən xilas etmək istiqamətində əhəmiyyətli və davamlı irəliləyişin əldə edilməsinin açarı olduğu qəbul edilir. Bu fakt getdikcə ən yüksək siyasi səviyyədə tanınır. Eyni zamanda, qlobal ərzaq və kənd təsərrüfatı sektoru demoqrafik dəyişikliklər, pəhrizlərdə dəyişikliklər, iqlim dəyişikliyi, məhdud təbii ehtiyatlar və s. daxil olmaqla, müxtəlif problem və maneələrlə üzləşir. Bu və digər amillər ərzaq problemini təmin edən əsas amillərin müəyyən edilməsi zərurətini əvvəlcədən müəyyənləşdirir. Onların köməyi ilə bəşəriyyətin qida ehtiyaclarını hiss etmək və lazımi həcmdə təmin etmək mümkün olacaq.Bbelə ki, indiki şəraitdə əkin sahələrinin genişləndirilməsi, o cümlədən kənd təsərrüfatının inkişafı üçün ehtiyat ərazilərin layihələrinin həyata keçirilməsi ilə bağlı ərzaq istehsalının növbəti artımı mümkündür; artıq işlənmiş torpaqlarda kənd təsərrüfatının intensivləşdirilməsi (o cümlədən suvarma, gübrələmə və s.); mütərəqqi əkinçilik üsullarını ənənəvi üsullarla birlikdə tətbiq etmək; ekoloji tədbirlərin həyata keçirilməsi; inkişaf etməkdə olan ölkələrin bütün iqtisadiyyatının strukturunun şaxələndirilməsi prosesi; müəyyən dərəcədə özünü qida ilə təmin etmək ideyasından imtina etməklə və iqtisadiyyatın digər sahələrinin inkişafı nəticəsində artan ərzaq tələbatının ixrac gəlirləri hesabına ödənilməsi ilə (ərzaq məhsullarının idxalına ehtiyac); aqrar islahatların sosial transformasiyalara ehtiyacı; inkişaf etməkdə olan ölkələrin elmi və texnoloji nailiyyətlərə, o cümlədən kənd təsərrüfatı sektoruna cəlb edilməsi.

Müxtəlif ölkələrin kənd təsərrüfatı siyasətləri onların iqtisadi, sosial və ekoloji şərtlərindən, habelə dövlət siyasətinin prioritetlərindən asılı olaraq dəyişə bilər. Bununla belə, ümumilikdə, kənd təsərrüfatı siyasətinin işlənib hazırlanmasında çox vaxt nəzərə alınan bir neçə prioritet sahə müəyyən edilə bilər:

-əhalinin ərzaq məhsulları ilə təmin edilməsi və idxal olunan ərzaq məhsullarından asılılığın azaldılmasıüçün kənd təsərrüfatının inkişafı;

- torpağın münbitliyini qorumağa, çirklənməyə nəzarət etməyə və ətraf mühitə mənfi təsirləri azaltmağa kömək edən təcrübələri və texnologiyaları dəstəkləmək;

- infrastruktur layihələri, iş yerlərinin yaradılması, təhsil və səhiyyəyə çıxış daxil olmaqla kəndlərin inkişafına dəstək göstərmək;

- kənd təsərrüfatı istehsalının stimullaşdırılması tədbirlərinin işlənib hazırlanması, o cümlədən subsidiyalar, kreditlər, vergi güzəştləri və texniki dəstək;

- kənd təsərrüfatında rəqəmsallaşma, biotexnologiya, dronların istifadəsi və s. kimi müasir texnologiyaların və innovasiyaların tətbiqinin təşviqi;

- ölkənin ixrac potensialının inkişafı, kənd təsərrüfatı məhsullarının dünya bazarlarına ixracının stimullaşdırılması;

- kənd təsərrüfatı işçilərinin sosial müdafiəsi və dəstəyi, o cümlədən səhiyyə, mənzil və təhsil almaq imkanı təmin etmək;

- kənd təsərrüfatını iqlim dəyişikliyinə uyğunlaşdırmaq və onun qlobal istiləşməyə mənfi töhfəsini azaltmaq üçün tədbirlərin hazırlanması və həyata keçirilmək.

Bu sahələr bir çox ölkələr üçün prioritet ola bilər, lakin hər bir konkret halda digər amillər də nəzərə alınır məsələn, milli xüsusiyyətlər, iqtisadi şərait, iqlim xüsusiyyətləri və s.

Kənd təsərrüfatı müəssisələrinin tənzimlənməsi sahəsində xarici təcrübənin tətbiqi kənd təsərrüfatı istehsalını sabitləşdirmək üçün zəruridir, bu, müasir texnologiyaların tətbiqinə, daxili bazarda istehsalçıların qorunmasını, kənd təsərrüfatı məhsullarının ixracının stimullaşdırılmasını,

istehsal infrastrukturunun inkişafının təmin edilməsini nəzərdə tutur. Dünya ölkələrinin kənd təsərrüfatı siyasətindəki tendensiyaların müqayisəli təhlili kənd təsərrüfatına dövlət dəstəyini beynəlxalq tələblərə və standartlara uyğunlaşdırmaq üçün onların təcrübəsindən istifadə etməyə imkan verir.

**ƏDƏBIYYAT SIYAHISI**


1. Abbasov İ.D. (2013). Azərbaycanın və dünya ölkələrinin kənd təsərrüfatı. Bakı..
2. Alıyev İ.H. (2006). Milli iqtisadiyyat və aqrar sahənin inkişafı problemləri. Bakı, 2006, 380 səh.
3. Food Outlook - Biannual Report on Global Food Markets / FAO. - Rome : FAO, 2022. -November. - 100 p. - URL: https://www.fao.org/3Zcc2864en/cc2864en.pdf
4. Food Security Update / World Bank. - Washington : World Bank, 2022. - 10.11. - URL: https://thedocs.worldbank.org/en/doc/40ebbf38f5a6b68bfc11e5273e1405d4-0090012022/ related/Food-Security-Update-LXXIII-November-10-2022-145741
5. Mustafayeva R.R., Abbasova Y.Ə., Cəfərova R.M. İqtisad elminin müasir problemləri. Dərs vəsaiti. Bakı 2019. Ecoprint. 264 s.
6. Сушкова С. Н., Сушкова Т. Ю., Бушов В. А. Ассоциативные формы сотрудничества как инструмент развития сельского хозяйства и сельских территорий // Вестник Ульяновской государственной сельскохозяйственной академии. 2014. № 2. С. 163-167.
7. Китайский дипломат призвал стабилизировать мировой продовольственный рынок // Синьхуа. - 2022. - 20.05. - URL: http://www.russian.xinhuanet.com/20220520/5438f774e 929478eaa40d62d8aaaa158/c.html (дата обращения: 05.08.2022).
8. Мировой продовольственный кризис: угроза или факт? (Обзор) // Зерно Он-Лайн. -2022. - 12.06. - URL: https://www.zol.ru/review/mirovoj-prodovolstvennyj-krizis-ugroza-ili-fakt-obzor-222379 (дата обращения: 16.12.2022).


# MÜASİR DÖVRDƏ CƏNUBİ KOREYANIN DÖVLƏTÇİLİK SİYASƏTİNİN PRİORİTET İSTİQAMƏTLƏRİ


**Mürşüdzadə Ceyhun Elşən oğlu**
AMEA Z.M Bünyadov adına Şərqşünaslıq İnstitutu
Asiya-Sakit Okean regionu ölkələri şöbəsinin kiçik elmi işçisi
mursudzade_ceyhun@mail.ru
BAKI, AZƏRBAYCAN


## XÜLASƏ


Koreya Respublikasında və ya Cənubi Koreyada idarəetmə forması əsasən prezidentlik sisteminə əsaslanır və bunun əsasını qanunvericilik və icra hakimiyyəti orqanlarının fəaliyyətinin bir-birindən asılı olmayaraq həyata keçirməsi təşkil edir. Cənubi Koreyada prezident parlament idarəetmə sistemi olan ölkələrdə olduğu kimi Milli Assambleya tərəfindən seçilmir, birbaşa xalq tərəfindən seçilir. Koreya Respublikası demokratik respublikadır və Koreya Respublikasının suverenliyi xalqın əlindədir. Ölkəninin bütün vətəndaşları yaşamaq və hərəkət etmək azadlığına malikdirlər. Bütün vətəndaşların qanunla müəyyən edilmiş qaydada səsvermə hüququ və qanunla müəyyən edilmiş qaydada dövlət vəzifəsi tutmaq hüququ vardır.

Müasir dövrdə Cənubi Koreyanın dövlətçilik siyasətinin prioritet istiqamətləri məqalədə öz əksini tapmışdır. Cənubi Koreya təcrübəsi sübut edir ki, demokratik keçidin uğuru bir sıra sosial-iqtisadi amillərdən asılıdır. Cənubi Koreyada demokratikləşmə dövlətin hüquqi sferasına böyük təsir göstərir. Qanunvericilik dəyişiklikləri Koreya cəmiyyətinin sosial və siyasi yenilənməsi ilə üst-üstə düşür. Koreya Respublikasının hökuməti üç orqana bölünür: qanunvericilik, icraedici hakimiyyəti və məhkəmə hakimiyyəti. Bununla belə, tipik prezident üsul-idarəsindən fərqli olaraq, qanunvericilik və icraedfici hakimiyyətlər arasında yaxınlıq müşahidə olunur. Koreya Respublikasında siyasət demokratik respublikaya əsaslanır və dövlət başçısı icraedici hakimiyyətinin başçısı olan prezidentdir.

Bununla yanaşı, hakimiyyətin bölünməsi prinsipi konstitusiya ilə təmin edilir. Konstitusiyada və ya qanunda başqa hal nəzərdə tutulmayıbsa, Milli Assambleyanın üzvlərinin çoxluğunun təsdiqi ilə qərarlar qəbul edir. Əgər bərabərlik olarsa, rədd edilmiş sayılır. Milli Assambleyanın iclasları ictimaiyyət üçün açıqdır. Lakin iclasda iştirak edən üzvlərin əksəriyyətinin razılığı olduqda və ya sədr milli təhlükəsizliyin təmin edilməsini zəruri hesab etdikdə açıqlana bilməz.

2. İqtisadiyyatın diversifikasiyasını təşviq etməklə və bu cür işçilərə sponsorluq edən ölkələrdə məşğulluq perspektivlərini genişləndirməklə yüksək ixtisaslı işçi qüvvəsinin emiqrasiyasının azaldılması.

4. Miqrasiya qanunvericiliyinin təkmilləşdirilməsi, əməkçi miqrantların hüquqlarının müdafiəsi və ayrı-seçkiliyə qarşı mübarizə.

5. Miqrasiya məsələlərində əməkdaşlıq və koordinasiya mexanizmləri beynəlxalq səviyyədə gücləndirilməsi.

**ƏDƏBIYYAT SIYAHISI**

1. Sadıqova, A. (2022). Azərbaycan respublikasında miqrasiya proseslərinin tənzimlənməsinin hüquqi əsasları. Polis akademiyasının elmi xəbərləri, № 4 (36), 139-145.
2. Khan, M. I. (2021). Consequences of Labour Migration on Wages and Employment: Evidence from India. The Indian Journal of Labour Economics, 64, 1, 23-47.
3. AR Dövlət Miqrasiya Xidməti (2024). 2023-cü il üzrə statistika, https://migration.gov.az/az/statistics (giriş: 31.03.2024)
4. Statista (2024). 2008-2022-ci illərdə əsas inkişaf etmiş ölkələrdə orta illik əmək haqqı, https://www.statista.com/statistics/1039216/average-wages-developed-countries/ (giriş: 31.03.2024)
5. AR Dövlət Miqrasiya Xidməti (2024). Müsahibələr, https://migration.gov.az/az/press_detail/322 (giriş: 31.03.2024)

# AZƏRBAYCANDA TƏHSIL MÜƏSISƏLƏRINDƏ MÜƏLLIMLƏRIN PERFORMANS DƏYƏRLƏNDIRILMƏSI SISTEMININ TƏHLILI

**ESMIRA DADAŞOVA**
Bakı Mühəndislik Universiteti
İqtisadiyyat və İdarəetmə / Dövlət strukturlarında menecment
**edadashova@std.beu.edu.az**
XIRDALAN, AZƏRBAYCAN

## XÜLASƏ

Müasir təhsilin keyfiyyət göstəricisi tədris prosesinin səmərəli idarə olunmasıdır. Təhsilin keyfiyyətli olması digər sahələr qədər önəmli və vacibdir.Keyfiyyət hər kəsin çalışdığı sahədə məsuliyyətini dərk etməsi, iş mədəniyyətinin mövcud olması deməkdir. Tədrisin keyfiyyət göstəricilərindən biri də öyrənənlərin bilik və bacarıqlarının əvvəlcədən müəyyən edilmiş gözləntilərə, təlim nəticələri və qiymətləndirmə meyarlarına uyğun gəlməsidir. Müasir pedaqoji prosesdə təhsilalanların sosial-mədəni və kommunikativ bacarıqlara malik yüksək qiymətləndirilir. Təhsilin keyfiyyətli olması davamlı inkişafa yönələn sistemdir. Tədris prosesinin tələbəyönlüvə şagirdyönlü təşkili və fəaliyyətlərin qiymətləndirilməsi müasir təhsilin əsası hesab edilir. Məqalənin məqsədi

təlimin əsas keyfiyyət göstəricilərinə uyğunluğunu və təhsil verənlərin performans dəyərləndirilmələrini araşdırmaqdır. Məlumdur ki, tələbələrin keyfiyyətli təhsil almaları üçün təhsilverənlərin savadlılıq, məlumatlılıq və səriştəlilik keyfiyyətləri yüksək səviyyədə olmalıdır. Təhsil sistemində keyfiyyətə nəzarət, keyfiyyətin ölçülməsi, keyfiyyətin artırılması məsələlərinə daha geniş yer verilməlidir. Çünki təhsil , dövlətin sütundur. Savadlı kadrların yetişməsi dövlətin gələcəyinin təminatıdır. Təhsil müəsisələri bilik istehsal edir. Bu gün istər Ali istərsə də orta təhsil müəsisələrində yol verilən hər hansı boşluq, gələcəkdə həm dövlətə həm vətəndaşlara öz mənfi təsirini mütləq göstərəcəkdir. Burada öyrənənlərə tədris olunan proqramlar, təhsil modeli, tədris planı, dərsliklər və s. metodiki vəsaitlər də böyük rol oynayır. Amma daha böyük vəzifə öyrədənlərin üzərinə düşür. Təhsil müəsisələrini qiymətləndirərkən daha dəqiq və obyektiv göstəricilərə əsaslanmaq vacib şərtlərdən biridir.

**AÇAR SÖZLƏR: Təhsil standartları, qiymətləndirmə,strategiya,tədris prosesi, keyfiyyət.**
**KEY WORDS: include education standarts, evaluation, strategy, teaching process, quality.**

## GIRIŞ

Performans, dilimizə İngilis dilindəki “performance” sözündən gəlmişdir, mənası icra etmək, məhsuldarlıq, bacarma gücü və s. kimi tərcümə olunur. Performans bir çox mənbələrdə hər hansı bir vəzifənin tələbi olan və əvvəlcədən müəyyən edilən standartlara uyğun davranışların göstərilməsi və planlanan məqsədə çatmaq dərəcəsi kimi təsvir olunur. Performans dəyərləndirmə isə işçinin performansının izləndiyi, həmçinin dəyərləndirildiyi zaman əldə edilən nəticələrin qeydə alınması və işçiyə bildirilməsi prosesidir. Performansın idarəolunması şirkətin hədəfləri ilə işçilərin hədəfləri arasında paralellik yaradaraq hər iki tərəfin də öz məqsədlərinə çatmasını koordinasiya edir. Performans dəyərləndirmə sistemi qədim bir sistemdir və 1800-cü illərin sonlarına doğru, insanların fiziki və zehni bacarıqlarının, davranışlarının, və məhsuldarlıq qabiliyyətlərinin ölçülməsini əhatə edirdi. Lakin zamanla texniki cəhətdən bu sistemə fərqli anlayışlar gətirildi.Performans dəyərləndirməsi dedikdə işçilərin və müəsiələrin performanslarını ölçən, yarana biləcək problemləri müəyyən etmə məqsədi daşıyan, qurumun hədəflərini personala çatdıran, performansı izləyən və ölçən bir sistem ağıla gəlir. Performans dəyərləndirilməsi sistemi İnsan Resursları şöbəsi tərəfindən qurulur. Bu sistemi qurmazdan əvvəl müəyyən araşdırmalar aparılmalı,digər şöbələrlə də məsləhətləşmələr aparılmalı, lazım gəldikdə dəstək alınmalıdır. Performans sistemi hazırlanarkən məlumatların düzgünlüyü ən vacib şərtlərdən biridir. Əks halda bu sistemin uğursuzluğuna və işçilərin də müəsisəyə olan inamının sarsılamasına səbəb olacaqdır.Performans dəyərləndirməsi işçinin müəyyən zaman ərzindəki performansının ölçülməsidir. İşçilərin performans dəyərləndirilməsinin ölçülməsi və onların mövcud performansları ilə gələcək performansları arasında olan boşluqları müəyyən etmək üçün 360 dərəcə qiymətləndirmə sorğusundan istifadə edilir. Bu qiymətləndirmə metodunu həyata keçirilərkən işçinin özü, üst rəhbərləri və ya menecerləri, tabeliyindəki olan işçilər və digər əməkdaşlar tərəfindən sorğu yolu qiymətləndirilir. 360 dərəcə qiymətləndirmə ilə yanaşı digər qiymətləndirmə növləri də var ki, aşağıda qeyd edirik: 90 dərəcə qiymətləndirmə - Bu qiymətləndirmə metodunda işçi onun birbaşa rəhbəri və ya meneceri tərəfindən qiymətləndirilir. Şəxsi qiymətləndirmə mövcud deyil. 180 dərəcə qiymətləndirmə - Bu qiymətləndirmə formasında işçi rəhbərin qiymətləndirməsi ilə yanaşı, özü – özünü də qiymətləndirə bilər. 270 dərəcə qiymətləndirmə - Bu qiymətləndirmə metodunda 3 maraqlı tərəf çıxış edir : Rəhbər, şəxsin özü və tabeçiliyində olan işçi. 540 dərəcə qiymətləndirmə - Bu qiymətləndirmə metodunda 360 dərəcə qiymətləndirmədən fərqli olaraq müştəri tərəfindən də qiymətləndirmə daxil olunur. 720 dərəcə qiymətləndirmə - Bu qiymətləndirmə metodu 360 dərəcə qiymətləndirməni 2 dəfə əhatə etməkdədir . Performansın qiymətləndirmə prosesinə təsir edən bir sıra faktorlar var. Bu faktorlar mənfi olarsa bu prosesdə bir sıra problemlər yarana bilər. Bu problemlərin həll olunması üçün isə əvvəlcə problemin nə olduğu bilmək lazımdır. Performans qiymətləndirmədə yaranan problemləri ümumi şəkildə aşağıdakı kimi deyə bilərik. 1 Sistemdə yaranan problemlər 2.Qiymətləndirəndə yaranan problemlər 3.Qiymətləndiriləndə yaranan problemlər. Qiymətləndirmənin müvəffəqiyyətlə tətbiq edilməsi üçün işçilərin qiymətləndirməni qavraması, tətbiq olunma məqsədlərini, onlara nələri qazandıracağını anlaması vacibdir. Performans qiymətləndirmənin əsas hədəfi, işin hansı səviyyədə reallaşdığının müəyyənləşdirilməsidir. Ancaq qiymətləndirmə prosesində şəxslərin davranışları şəxsiyyət xüsusiyyətləri də işin içinə daxil ola bilir ( Müzəffərli 2018).

## TƏDQIQAT METODU

### Performans dəyərləndirmələrinin təhsil sistemində rolu

Performans bir işçinin işləmə davranışının ifadə etdiyi nəticədir.Bir işçi üçün performans onun işini hansı dərəcədə uğurlu etməsidirsə, bir rəhbər üçün də işçilərinin işində nə qədər effektiv ola bilməsini dəyərləndirən bir "ölçü vahididir" deyə bilərik.Performans dəyərləndirmə sisteminin məqsədi və faydaları aşağıdakılardan ibarətdi:

- İşçilərin performanslarını doğru şəkildə qiymətləndirmək;
- Uğurları mükafatlandırmaq, işçi ixtisarlarını müəyyənləşdirmək;
- İşçinin məhsuldar və ya qeyri-məhsuldar çalışmasını müəyyənləşdirmək;
- İşçinin təlim ehtiyaclarını analiz etmək;
- Rəhbər və işçi arasındakı əlaqələri artırmaq və möhkəmləndirmək;
- İşçilərin görünməyən bacarıqlarını müəyyən edib, heyəti pozitif komanda şəklində çalışmağa təşviq etmək;
- Rəhbərlərin də performanslarını dəyərləndirmələrinə nail olmaq;
- Performansın artmasını təmin etmək.

Həm işçilər, həm rəhbərlər üçün ideal bir sistem olan Performans Dəyərləndirmə Sistemi, işçiləri ədalətli qiymətləndirmək imkanı təqdim edir. Performans Dəyərləndirmə Sistemini işçilərin bacarıqlarının qiymətləndirilməsi kimi də ifadə etmək olar. İşçilərin xoşbəxtliyi və məhsuldar olduğu cari dövrdə işçilərinin performansını dəqiq qiymətləndirmək istəyən şirkətlər müxtəlif qiymətləndirmə sistemlərindən istifadə edirlər . Hər bir müəssisə və ya təşkilat işçilərin peşəkarlıq səviyyəsinin müasir dövrün tələbləri ilə uyğunlaşmasını təmin etmək üçün müxtəlif təlim-treninqlər, görüşlər, konfranslar təçkil edir. Daha sonra isə bu tədbirlərin effektivliyini yoxlamaq üçün kadrların əldə etdiyi bilik və bacarıqlarının ölçülməsi məqsədilə imtahanlar təşkil edir. Texnologiyalar əsrində hər bir qurum mütəxəssislərinin peşəkarlıq səviyyəsinin müasir tələblərə cavab verməsini təmin etmək üçün bu prosesin təşkilinə səy göstərir. Təhsil sistemində çalışanların onların peşəkarlıq səviyyəsi daim nəzarətdə saxlanılmalı, elmi-metodiki bacarıqlarının zamanla uyğunlaşdırılması təmin edilməli və bu bacarıqlar müntəzəm ölçülməlidir. Pedaqoji prosesə "çörək ağacı" kimi baxmaq kimi yanlış yanaşmadan uzaqlaşmaq təkcə müasir dövrün deyil, bütün tarixin tələbidir (Hüseynova, 2021). Azərbaycan dövlət müstəqilliyi əldə etdiyi ilk dövrlərdə təhsil sistemimizdə əsaslı dəyişiklik etmək üçün onun əsasını təşkil edən yeni Təhsil Qanunu qəbul edildi, ali məktəblərə qəbul sistemində inqilabi dəyişiklik edildi. Sonrakı dövrlərdə də müəyyən islahatlar aparıldı. Ali və orta ixtisas təhsili müəsisələrində baloniya sisteminin, kredit sisteminin tətbiqi, ali və orta ixtisas müəsisələrinin publik hüquqi şəxs statusuna keçirilməsi, kolleclərin universitetlərin nəzdində fəaliyyət göstərməsi, orta təhsil sahəsində Müəllimlərin İşə Qəbul imtahanları , məktəb idarəetməsi, direktor və müavinlərinin müsabiqə yolu ilə təyin edilməsi, təhsilin müxtəlif sahələri üzrə təlim-treninqlərin təşkili, müxtəlif mövzularda aparılan müzakirələr, Elm və Təhsil Nazirliyi rəhbərliyinin cəmiyyətə açıq olması, təhsil idarələrinin struktur dəyişikliyi və bir çox digər yeniliklər bu sahədə əldə olunan nailiyyətlərdəndir. Müəllimlərin İşə Qəbul imtahanları imtahanlarının keçirilməsi təhsilverənlərin keyfiyyətinin müəyyən edilməsinə xidmət edir, asertifikasiya imtahanları - bu istiqamətdə artıq ilk addımlar atılır - təhsilverənlərin peşəkarlıq səviyyəsinin inkişaf dinamikasını izləməyə xidmət edir.

### Müəllimlərin bilik və bacarıqlarının dəyərləndirilməsi üsulları.

Tədrisin keyfiyyəti müəllimin səriştəsi, müasir pedaqoji yanaşmaların tətbiqi, əlverişli, çevik təlim mühitinin yaradılması, müasir texnologiyaların istifadəsi və qiymətləndirmənin aparılması ilə ölçülür. Bununla bərabər, tədrisdə mövcud olan problemlər onun dayanıqlığını təmin edə bilmir, tələbə maraqlarını qarşılamır və təlim nəticələrinin qazanılmasında məhdudiyyətlər yaradır. Elmi araşdırmalar göstərir ki, pedaqoji prosesdə yeni biliklərin və səriştələrin praktiki şəkildə qazanılması məhz keyfiyyət strategiyaları əsasında baş verir. Ali təhsildə keyfiyyətin təmin edilməsində 4 ünsür iştirak edir:1. Öyrənənlər 2.Öyrədənlər 3. Ali məktəbdəki mühit, idarəetmə 4. Tədris planı, proqramlar , təhsil modeli.

Ali təhsil müəsisələrində tədris və təlim prosesində keyfiyyətə nəzarət dedikdə, təlimin aparılmasına dair professor-müəllim heyətinin hazırladığı Avropa standartlarının tələblərinə uyğun işlənib hazırlanmış təlimin texnoloji xəritəsinin düzgün icrasına nəzarət başa düşülməlidir.Hər bir təhsil müəsisəsi keyfiyyətə nəzarət sistemi vasitəsilə məlumatlar toplamalı, təhlil etməli, nəticələri qruplaşdırmalı, səhvləri müzakirə üçün kafedralara təqdim etməlidir (Heydərov 2023).

Ali təhsil müəsisələrinin özlərinin performans dəyərləndirilməsinin səviyyəsini qəbul olunan tələbələrin sayı, tədris prosesi, təhsilin nəticəsi, tələbənin məzun olduqdan sonra işlə təmin olunması vəziyyəti , tədris olunan ixtisasların peşə və kvalifikasiya standartlarına uyğunluğu , məzun olanların işə qəbul zamanı göstərdiyi nəticələr, və s. amillər müəyyən edir. Ali təhsil müəsisələrində professor-müəllim heyətinin performasının ölçülməsi isə ali təhsil müəsisəsinin özünün təyin etdiyi daxili üsul və sistemlərə əsaslanır. Ali təhsil müəsisələrində Professor-müəllim heyətinin peşə fəaliyyətinin qiymətləndirilməsinin istiqamətləri əsasən aşağıdakı meyarlar üzərindən aparılır:1. Tədris fəaliyyəti – 2.Elmi fəaliyyəti 3.Özünü inkişaf fəaliyyəti 4.İctimai fəaliyyət .

Tədris fəaliyyətinə aşağıdakılar aid edilir: dərslərin təşkili və aparılması, tədris-metodiki vəsaitlərin hazırlanması, yeni nəsl elmi kadrların formalaşdırılması. Elmi fəaliyyət dedikdə daha çox elmi nəşrlərin çıxarılması, elmi tədbirlərdə konfranslarda,simpoziumlarda iştirak, tədqiqat işlərinin aparılması nəzərdə tutulur.Özünü inkişaf fəaliyyətinə müəllimin öz ixtisas dərəcəsini artırması, xarici dil biliklərini artırması,seminarlarda iştirakı aid olunur.İctimai fəaliyyət dedikdə isə, universitetdaxili və ölkədaxili hətta ölkə xaricində ictimai tədbirlərdə iştirakı etməsi nəzərdə tutulur.Müəllimin fəaliyyətinin qiymətləndirilməsində bütün bu meyarlar üzərindən birdə keçirilən sorğuların nəticəsi əlavə olunur. Ölkəmizdə fəaliyyət göstərən bir çox ali təhsil müəsisələrində təhsilverənlərin performansının ölçülməsi təhsilalana yönəldilən anonim anketlər vasitəsilə aparılır. Anket cavablarının anonimliyi qorunduğuna görə suallar tələbələr və müəllimlər tərəfindən tam obyektiv şəkildə cavablandırılır. Sonda toplanan cavablar əsasında təhsilverənin performansı dəyərləndirilir, reytinq cədvəlləri tərtib olunur. Reytinq cədvəlində yüksək yer tutan professor-müəllim heyətinin nailiyyətləri yeni tədris ilində dərs yükünun bölünməsində təhsil müəsisəsi tərəfindən nəzərə alınır.Təhsilverənin performans dəyərləndirilməsini tələbələrin imtahanda göstərdiyi keyfiyyət hesablamalarına görə təyin edən ali təhsil müəsisələri də vardır. Bu zaman müəllimin tədris verdiyi qruplarda imtahan nəticələrinə əsasən kəmiyyət və keyfiyyət göstəriciləri çıxarılır və onun işinin dəyərləndirilməsi aparılır. Performansı yüksək dəyərləndirilənlərin əməyi rəhbərlik tərəfindən qanuna müvafiq olaraq müxtəlif formada mükafatların verilməsi, əmək haqqının artırılması və yaxud dərs yükünün artırılması şəklində qiymətləndirilə bilər.

Təhsil aldığım Bakı Mühəndislik Universitetində bu proses müəllim-professor heyəti və tələbələr arasında aparılan anonim sorğu əsasında keçirilir və reytinq cədvəli tərtib olunur. Bir tələbə olaraq məndə anket sorğusunda iştirak etdim və tam obyektiv formada anketi cavablandırdım.

Azərbaycan Dövlət İqtisad Universitetində differensial əməkhaqqı sistemi tətbiq edilir. Əməkhaqqlarına differensial əlavələrin edilməsində əsas məqsəd pedaqoji heyətin motivasiyasını təmin etmək və müəllimlər arasında rəqabət mühitini gücləndirməkdir.Xidməti fəaliyyətin qiymətləndirilməsi məqsədilə bütün vacib məlumatlar sistemə daxil ediləcək.Növbəti mərhələdə professor-müəllim heyətinin Xidməti Fəaliyyətini Qiymətləndirmə üzrə Daimi Komissiya təsdiqedici sənədlərdə ekspertiza aparır. Heyətin xidməti fəaliyyətinin qiymətləndirilməsi onların universitetdəki elm, tədris və özünüinkişaf fəaliyyət istiqamətləri üzrə həyata keçirilir. Hər tədris ilinin sonunda toplanan ballara əsasən müəllimlərin əməkhaqlarına, əməkhaqqına əlavələr olunur.

Qərbi Kaspi Universitetində də bu proses tələbələ yönəldilmiş gizli sorğular əsasında tam obyektiv şəkildə həyata keçirilir.Tələbələr sorğunu cavablandırmaqla professor -müəllim heyətinin reytinq cədvəlindəki mövqeyini təyin edirlər.Sorğunun təşkil olunması qaydası universitetin daxili qaydalar toplusunda əks olunmuşdur.Bakı Biznes Universitetinin də Professor-müəllim heyətinin peşə fəaliyyətinin qiymətləndirilməsi Qaydalarında sorğu üsulundan istifadə öz əksini tapmışdır.

Orta təhsil müəsisələrində isə bu proses Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi tərəfindən həyata keçirilən sertifikasiya prosesi əsasında aparılır.Müəllimlərin sertifikasiya prosesi 2022-2027ci illəri əhatə edəcək və 2022-2025ci illərdə tamamilə başa çatacaq. Sertifikasiya yalnız müəllimlərin imtahan verməsi kimi qiymətləndirilmir, o həmdə onların maaş artımı deməkdir. Sertifikasiyaya cəlb olunan müəllimlərin maaşı 10% ya da 35% artırılacaq. Bu da təbii ki, müəllimin göstərdiyi nəticədən asılı olacaqdır. İlkin mərhələdə 30000 müəllim sertifikasiyadan keçib. Onlardan 10%-i yüksək nəticə göstərib, 53% qənaətbəxş,30% təkmilləşdirməyə ehtiyacı olanlar, 0.7% isə 0-9 bal toplayıb. Sertifikatlaşdırmanın test mərhələsində azı 30 (otuz) bal toplamış təhsilverənlər sertifikatlaşdırmanın müsahibə mərhələsinə buraxılırlar. Müsahibə mərhələsində isə hər bir təhsilverənə 20 (iyirmi) dəqiqə vaxt ayrılır.

Müsahibədə iştirak edən şəxslər aşağıdakı meyarlar əsasında qiymətləndirilirlər:

1. proqram üzrə mövzunu təqdimetmə bacarığı;
2. təhsilalanları qiymətləndirmə bacarığı;
3. özünü təqdimetmə bacarığı;
4. pedaqoji prosesi təşkiletmə bacarığı;
5. ünsiyyət bacarığı.

Aşağıda sadalanan təhsilverənlər sertifikatlaşdırmadan keçmirlər:

1. hamilə qadınlar;
2. uşağının 3 yaşınadək sosial məzuniyyətdə olan və həmin məzuniyyət bitdikdən sonra 1 (bir) ildən az müddətdə müvafiq vəzifədə çalışan qadınlar (uşağını təkbaşına böyüdən kişilər);
3. ilk dəfə işə qəbul olunanlar, 5 il müddətində;
4. azı 3 dəfə sertifikatlaşdırmadan keçmiş şəxslər. ( Azərbaycan Respublikası Qanunvericilik toplusu 2022)

Üzrlü səbəbdən sertifikatlaşdırmada iştirak etməyən və ya sertifikatlaşdırmadan keçməyən şəxslər 1 (bir) il müddətində iş yeri saxlanılmaqla, təkrar sertifikatlaşdırmada iştirak etmək hüququna malikdirlər. Təkrar sertifikatlaşdırmada iştirak etməyən şəxslər sertifikatlaşdırmadan keçməmiş hesab olunurlar.

Sertifikasiyanın test mərhələsində təhsilverənlərə təqdim edilən iki istiqamətdə suallar onların ixtisas bilikləri ilə yanaşı müasir təlim metodları və üsulları, fəal-interaktiv təlim texnologiyaları, interaktiv dərsin mərhələləri və ona verilən tələblər, kurikulumun mahiyyəti və məzmunu, innovativ pedaqoji fəaliyyətin xüsusiyyətləri mövzularını və s. əhatə edir. İmtahandan yüksək bal toplayanların özünəinamı, digərlərinin də hazırlaşma mərhələsində əldə etdikləri bilik və bacarıqlardan yaranan öyrənmə həvəsi, digər tərəfdən öz bacarığına inanan müəllim daim öz üzərində işləməklə inkişafını, əməyinin daha yüksək əməkhaqqı ilə dəyərləndirilməsini təmin edəcək. Bu isə müəllimin əməyini stimullaşdırmaqla yanaşı digər təhsilverənlər üçün nümunə olmaqla təhsilin keyfiyyətinin yüksəlməsini təmin edəcək. Sertifikasiya imtahan sadəcə bilik və bacarığın ölçülməsi ilə kifayətlənməli deyil, daha geniş miqyaslı olmalıdır. Çünki, müəllimlik üçün bilikdən daha vacib dəyərlər var: nitq, ünsiyyət bacarığı, davranış, psixoloji durum, emosional zəka və s. Bəzən olur ki, elmi biliyi yüksək səviyyədə olmayan müəllimlər olur ki, o, həm sevilir, həm də ciddi hörmət sahibidir. Onun digər bacarıqları biliyini üstələyə bilir. Bu zaman müəllimin dəyərləndirilməsi də sadəcə elmi biliklərlə yox, digər sahələrlə də aparılmalıdır. Çünki bu gün cəmiyyətə bilikli, eyni zamanda vicdanlı, ədalətli, mərhəmətli, çevik zəkalı, tərbiyəli insanların yetişdirilməsi daha çox vacibdir. İmtahan nəticəsində yaranan müəllim özgüvəni gələcəyin azad və müstəqil müəllimini formalaşdırır. Yaxın illərdə təshil sahəsində sertifikasiya imtahanlarının keçirilməsi üçün Pedaqoji Kadrların Performans Dəyərləndirilməsi sistemindən istifadə olunacaq (Sadıqov 2022). Bu sistem düzgün işlədilərsə, bir müəllimin bütün tərəflərini dəyərləndirmək və haqqı olanı vermək imkanı yaranacaq. Sistemə əsasən pedaqoji heyətin dəyərləndirilməsi aşağıdakı meyarlar üzrə ümumi 100 ballıq şkala ilə qiymətləndirilir. Bura aiddir:

- Pedaqoji heyətin şagird tərəfindən qiymətləndirilməsi-30 bal
- Özünüqiymətləndirmə -10 bal
- Rəhbərlik qiymətləndirməsi -10 bal
- Müəllimin peşəkar inkişaf portofilosu-50 bal

Attestasiya komissiyası pedaqoji işçinin attestasiyasının nəticəsi olaraq aşağıdakı qərarı verir:

- Tutduğu vəzifəyə uyğundur : 30-100 bal
- Tutduğu vəzifəyə uyğun deyil : 0-29 bal

Pedaqoji Kadrların PerformANS Dəyərləndirməsi nəticələri yekunlaşandan sonra müəllimlərin topladıqları bala görə yeni tədris ili üçün həvəsləndirmə prosesi başlayacaq ki, bu zaman ballara əsasən müəllimlər aşağıdakı standartlara görə bölgüləndirilir:

- Tələblərə tam cavab verən: 90-100 bal
- Tələblərə cavab verən: 80-89 bal
- Tələblərə əsasən cavab verən: 60-79bal
- İnkişaf etdirilməsi zəruri olan: 50-59 bal

- İnkişafı aşağı olan: 30-49 bal
- İnkişafı çox aşağı olan: 0-29 bal

Bu təklif olunan Performans Dəyərləndirilməsi layihəsinin bir hissəsidir (Sadıqov 2022) . Xüsüsi komisiyya yaradılarsa bu layihənin həyata keçirilməsi yaxın 3 il ərzində baş tutacaqdır.Bu sistem artıq bəzi özəl təhsil müəsisələrində tətbiq edili.”Hədəf Liseyi” öz müəllim heyətinin performans dəyərləndirilməsində artıq dəyərləndirmə sistemindən istifadə etdiyi barədə liseyin internet saytında məlumat vermişdir.

**NƏTICƏ**

Azərbaycan Təhsil sistemində son illərdə yaxşı istiqamətdə baş verən dəyişikliklər danılmazdır. Özüm kolleclərdən birində müəllim, eyni zamanda da magistratura pilləsində tələbə olaraq bu araşdırmaları apararkən belə qənaətə gəlirəm ki, istənilən insan öz sahəsində peşəkar olmalıdır. Bunun üçün də insanlarda ruh yüksəkliyi və motivasiya yaranmalıdır ki, o öz işində daha uğurlu olsun. Performans dəyərləndirilməsi sisteminin bütün təhsil müəsisələrində tətbiqi mühüm şərtdir. Çünki, bu sistem pedaqoji heyəti daha çox çalışmağa, reytinq cədvəllərində yüksək yerlər tutmağa, sertifikasiya imtahanlarında daha yüksək nəticələr göstərməyə təşviq edir. Ortaya çıxan nəticə isə həm ali, həm orta təhsil müəsisələri üçün yüksəlişdir. Yalnız öz üzərində çalışan, həvəslə öyrənən və öyrənməyi öyrədən müəllimlər yüksək intelektli, savadlı, vətənpərvər, cəmiyyətə yararlı şagirdlər və tələbələr yetişdirə bilər. Keyfiyyətin təmin olunmasında qeyd olunan fikirlərin kompleks şəkildə təşkili tədrisin uğurlu nəticələnməsi və tələbə məmnunluğunun ən yüksək göstəricisi kimi dəyərləndirilməlidir. Azərbaycanda təhsilin yüksəldilməsi ilk növbədə təhsilverənin peşəkarlıq səviyyəsindən və əməyin dəyərləndirilməsindən asılıdır. Pedaqoji heyətin performans dəyərləndirilməsi sistemi düzgün qurulan bütün təhsil müəsisələrində müəllimilərin bütün tərəflərini dəyərləndirmək və onlara haqqı olan dəyəri vermək imkanı yaranacaqdır. Bu sistemi düzgün təşkil etmək üçün xarici ölkələrin təcrübələrindən yaralanmaq, ölkəmizdə bu sistemi düzgün quran müəsisələrlə qarşılıqlı əlaqə saxlamaq , çoxtərəfli təlimlər təşkil etmək, metodiki vəsaitlərdən istifadə etməklə işgüzar qiymətləndirmələrinin səmərəliliyini artırmaq vacib şərtdir.

**ƏDƏBIYYAT SIYAHISI**

Tədqiqat işində istinadlar APA stilinə uyğun olaraq qeyd olunur. Yəni istinad cümlənin sonunda mötərizə içində müəllifin (və ya müəlliflərin) soyadı, nəşr tarixi göstərilir. Nümunə üçün: (Qasımov, 2023). İstinaddan sonra nöqtə qoyulur. Ən çox istifadə edilmiş 5 ədəbiyyat göstərilməli və aşağıdakı nümunəyə uyğun olmalıdır:

1. Hüseynova N. (2021). Azərbaycan məktəbi Jurnalı 1/694 səh95-100
2. Müzəffərli T.(2018). “Azərbaycan müəssisələrində tətbiq olunan performans qiymətləndirmə üsulları: yaranan problemlər və onların həlli yolları’’ səh26-35
3. Sadıqov Ş. (2022) Muallim.edu.az. Sertifikasiyamı, Pedaqoji Kadrların Performans Dəyərləndirilməsimi?
4. (2022). Azərbaycan Respublikası Qanunvericilik toplusu 1.maddə 67
5. Heydərov C. (2023). Heydər Əliyevin təhsildə keyfiyyət siyasəti-Audit 1(39) səh5-12

# ELEKTRON DEMOKRATIYA

**ÜLKƏR ŞÜKÜROVA**
Bakı Mühəndislik Universiteti
Dövlət və Bələdiyyə idarəetməsi/Elektron İdarəetmə
*ushukurova1@std.beu.edu.az*
BAKI,AZƏRBAYCAN

**XÜLASƏ**

Sənaye cəmiyyətindən informasiya cəmiyyətinə keçidin yaşandığı müasir dünyada qloballaşma ilə paralel olaraq geniş yayılmış informasiyadan istifadə bir çox siyasi, iqtisadi, sosial və mədəni sahələrə təsir göstərmişdir. Yeni kommunikasiya texnologiyalarının inkişaf edərək yayılması ilə birlikdə demokratiya və siyasi iştirakla tətbiqlər elektron mühitə uyğunlaşmağa başlayıb. Elektron demokratiya tətbiqlərinin gedərək daha da əhəmiyyət qazanması elektron seçki və elektron səsvermə sistemlərinin tətbiqi də müzakirə mövzusuna çevrilmişdir. Elektron seçki və elektron səsvermə ilə bağlı aparılan araşdırma göstərir ki, gündəlik həyatın yeni kommunikasiya texnologiyaları təcrübələrinin elektron mühitə inteqrasiyası gündən-günə daha çox populyarlaşaraq, elektron mühitə keçməyi qaçınılmaz edir. Elektron səsvermə istifadə alətlərinin müəyyən fiziki mühitdə yerləşdirilmədiyi halda belə seçicilərin öz telefonu, kompüteri və s. istifadə vasitələri ilə uzaqdan, səsvermə olduğu yerdən asılı olmayan elektron səsverməni həyata keçirməni vacib edir.

Elektron demokratiya ənənəvi demokratik proseslərdən ayrı düşünülə bilməz. Bu siyasi proseslərdə iştirak etmək üçün tamamlayıcı və ənənəvi demokratik proseslər vasitəsilə bağlıdır. Bu proseslərə idarə siyasətin qəbulu, qərarların qəbulu, xidmətlərin göstərilməsi, məlumatların təmin edilməsi, məsləhətləşmələr, danışıqlar və s. aiddir.

Bütün dünyada kommunikasiya texnologiyalarından istifadənin artması və bu texnologiyanın gündəlik həyata nüfuz etməsi, siyasi fəaliyyətlər də daxil olmaqla geniş sahələrdə texnologiyadan istifadəni mühüm fürsətə çevirdi. Bu, vətəndaşlara mümkün olan hər bir sahədə demokratik qərar qəbuletmə proseslərində iştirak etməyə imkan verən effektiv vasitədir.

Təbiidir ki, zaman keçdikcə informasiya cəmiyyətinə keçid, demokratik dəyərlərə əsaslanan e-dövlət strategiyası dövlət modelinin tədricən dəyişməsini, vətəndaş və biznes strukturlarının payının artmasını, hökumətin payının isə minimuma enməsini şərtləndirir.

**AÇAR SÖZLƏR: Elektron Demokratiya, Elektron Hökumət, İnformasiya Cəmiyyəti, Elektron səsvermə, Elektron seçki, İnformasiya və Kommunikasiya Texnologiyaları və s.**

**KEYWORDS: E-Democracy, E-Government, Information Society, E-voting, E-election, Information and Communication Technologies, etc.**

## GIRIŞ

Bir ölkə demokratiya ilə idarə olunur dedikdə, onun ən uyğun idarəetmə forması ilə idarə edildiyi düşünülür, lakin bu fikrin etibarlılığı necə tətbiq olunmasından asılıdır. Demokratiya modeli düzgün idarəçilik formasına yanaşılır, amma təmsilçi demokratiya modelinin bir çox problemlərinin var olduğu göz önündədir. Yaşadığımız əsrdə, xüsusilə də siyasi partiyaların yarandığı Avropada təmsilçi demokratiyanın davam etməsi sual altındadır.

Demokratik proseslərdə informasiya və kommunikasiya texnologiyalarının verdiyi üstünlüklərə vətəndaşları demokratik prosesə cəlb edib və şüurlu maraqlı tərəflər yaradaraq elektron demokratiyada vətəndaşların səlahiyyətlərini artırmağı məqsəd qoyur. Vətəndaşların dövlət funksiyalarında iştirakının açıq və şəffaf olmağı elektron demokratiyanın dövlət fəaliyyətində əvəzsiz elemendir.

Emal gücünün artırılması və tez qərarlar qəbul edə bilən ehtiyac yönümlü dövlət idarəçiliyinin yaradılmasını qarşısına məqsəd qoyan dövlətin elektronlaşdırılmasında texnologiyalar mühüm vasitədir. Modernləşmə və yenidənqurma alətləri olan elektron hökumət və e-demokratiya kimi tətbiqlər, idarəetmənin informasiya əsrinə uyğunlaşdırılmasında istifadə olunan ən mühüm anlayışlardan biridir.

## TƏDQIQAT METODU

### Demokratiya nədir?

Demokratiya, tərifi hələ də müzakirə edilsə də, bir çox mənbələrdən demokratiyanın nə olduğunu soruşduqda onun Qədim Yunanıstanda tətbiq edildiyini qeyd edirlər. Və bu ifadə yunan mənşəli olub xalqın gücü mənasını verir. Sərt şərtlər daxilində idarə olunan xalq hökumətin qərarların qəbulu prosesində söz sahibi olması ilə demokratiyanın müəyyənedici xüsusiyyətlərini formalaşdırdıqlarını görmək olar. (Gönül A.F., 2021)

Demokratiya XX əsrdə özünün ümumbəşəri etibarlılığına çatır. Universal meyarlar yavaş-yavaş ortaya çıxmağa başlayır. Səsvermə hüququ qazanan mülkiyyəti olmayan sadə insanların dövlət idarələrində sayı artır. Dəstək yaranmağa başladıqca, demokratik idarəçiliyə qarşı antipatiya azalmağa başladı. Artıq bütün dünyanın siyasi dilində demokatiya qəbul edilməyə başlanıldı. Siyasi demokratikləşmə vətəndaşların üç əsas sosial sahədə dövlətlərdən azad olması deməkdir. Bu, xidmətlərə olan tələblərə səbəb oldu: təhsil, səhiyyə və ömürlük gəlir zəmanəti. Bu xidmətlər getdikcə ayrılmaz hüquqlar kimi qəbul olunmağa başladı. (Güngör S., 2014 )

Bir çox araşdırmalar Qərb demokratiyalarındakı böhrana diqqət yönəldir və ictimaiyyətin siyasətə marağının olduğunu göstərərək, onların siyasətə qatılmasının vacibliyinə işarə edir. Amma yalnız siyasi aktyorların dəyişdirilməsinin mövcud böhranı aradan qaldırmaq üçün kifayət etmədiyini qeyd edir. Beləliklə elektron demokratiyanın ilk tətbiqlərinə 1992-ci ildə təsadüf edilir. (Çokluk N.C. Özdemir M., 2019)

### Elektron demokratiya

Bəşər tarixinin dəyişməsi ilə bu günə qədər gələn yazı və mətbəənin ixtirasından sonra daha böyük bir yenilik olan internetin ixtirası ilə texnoloji inqilab baş verdi. Bu inqilab ilə dünya tarixini və cəmiyyətlərini yenidən formalaşdıran böyük inqilablardan sonra insan münasibətləri dünyanı kökündən dəyişdirən mühüm inkişaf olmuşdur. Rəqəmsal mühitdə ünsiyyət qura bilən və bu mühitdə hüquq və vəzifələri olan rəqəmsal insanlar olaraq adlanan şəxslər üçün elektron demokratiya mövcud nizamı dəyişdirmək mənasına gəlir. Əsas element fərdlərin texnologiyadan istifadə etmək üçün biliyə və imkanlara malik olmasıdır (Çokluk N.C. Özdemir M., 2019). Bu gün dünyanın bir çox hökumətləri öz vətəndaşları ilə elektron şəkildə ünsiyyət qurub, əlaqə saxlayırlar. Elektron hökumət, rəqəmsal mühitə keçidin ən mühüm addımlarından biridir Onun həyata keçirilməsi ilə dövlət qurumları məlumat və xidmət anlayışlarını dəyişir və inkişaf etdirirlər. (Çokluk N.C. Özdemir M., 2019)

Son illərdə informasiya və kommunikasiya texnologiyalarının inkişafı cəmiyyətlərdə institutların siyasi və inzibati fəaliyyətində mühüm yeniliklər gətirir. Bu, vətəndaşların onları idarə edən hökumətlə ünsiyyətində böyük dəyişikliklərə səbəb olur. İnternet hökumətlə vətəndaşlar arasında qarşılıqlı əlaqə vasitəsi yaradıb. (Güler T. Şahnagil S., 2017) İnformasiyaya çıxışın təmin edilməsi və informasiyaya passiv girişdən fəal vətəndaş iştirakına keçid bir gözləntiyə çevrilib. (Güngör S., 2014)

Demokratiyaya standart bir tərif verilə bilinmədiyi kimi e-demoktariyanında qəbul edilmiş vahid tərifi yoxdur. Buna görə də irəli sürülən bir neçə tərifi təhlil etmək daha düzgün olar. Tərifə görə, elektron demokratiya demokratik fəaliyyət və idarəetmədə kompüter şəbəkələrindən istifadədir. (Güler T. Şahnagil S., 2017) Bundan əlavə, e-demokratiya ayrı-ayrı şəxslərin fikirlərini rəhbərliyə çatdıracaq danışıqlar sahəsidir. Həmçinin ümumi şəkildə xalqın hökumətdə iştirakı kimi müəyyən edilən demokratiya anlayışı elektron demokratiya ilə çox sıx bağlıdır. Elektron demokratiya, partiya liderləri və seçici partiyalar arasında siyasi informasiya axınının və qərar qəbuletmə proseslərinin elektron media vasitəsilə ötürülməsi kimi müəyyən edilə bilər. (Çokluk N.C. Özdemir M., 2019)

Demokratiya anlayışının təkamülü ilə təmsilçi demokratiyanın gündən-günə siyasi asayişi qoruya bilməməsi müəyyən dəyişikliklər yaradır. Elektron demokratiyanın ən mühüm tələbi olan internetə bərabər çıxışın təmin edilməsi və s. lazımlı addımlar tamamlanarsa, ictimai və siyasi prosesin sürətlə dəyişəcəyi gözlənilir. İnformasiya və kommunikasiya texnologiyaları demokratiya anlayışını bu gün məlum olandan çox fərqli bir formaya çevirmək istiqamətində yeni addımlar atmaqdadır. Texnologiya sahəsindəki inkişaflar, internetin insan həyatında mühüm yer tutmasına şərait yaratmışdır. Cəmiyyətin bir çox təbəqələrini əhatə edən internet şəbəkəsi, interaktiv kompüterlər və televiziya kimi kütləvi informasiya vasitələri və internetdə parlament kimi yeni siyasi dizaynlar formalaşmasına da imkan verir. Bu vəziyyət bəziləri tərəfindən birbaşa olaraq qəbul edilərək, demokratiyanın mövcud ola biləcəyinə dair ümidləri artırsa da, bəziləri bunu demokratiyanın sonu kimi qəbul edilir. (Çokluk N.C. Özdemir M., 2019) Hökumətin vətəndaşlara onlayn məlumat və əməliyyatlara məhdud çıxış təqdim

etməsi yenə də bir tərəfli ünsiyyəti göstərir. Beləliklə, elektron demokratiya hələ də hökumətin hökmranlığı altındadır mənasına gəlmiş olur. (Çokluk N.C. Özdemir M., 2019) Dövlət, özəl və mülki sektorları ortaq nöqtədə bir araya gətirən idarəetmə, elektron mühitdə səmərəlilik, şəffaflıq və effektivlik kimi xüsusiyyətlərini e-hökumət vasitəsilə həyata keçirir. Demokratik prosesin işləməsi üçün zəruri olan fəaliyyətlər informasiya-kommunikasiya texnologiyaları vasitəsilə inkişaf etdirilir. Strategiyalarla həyata keçirilən elektron demokratiya vətəndaşlara informasiya və kommunikasiya texnologiyalarından istifadə edərək siyasətlərini istiqamətləndirməyə imkan verir. (Güler T. Şahnagil S., 2017)

Elektron demokratiyanın insan həyatına daxil olması ilə parlaq görüntülər, ritorik çıxışlar və qısa izahatların daha vacib olduğu başa düşüldü. Yeni medianın inkişafı və cəmiyyət üzvlərinin, vətəndaşın təhsil səviyyəsinin yüksəldilməsi, onların tələblərinin dəyişməsinə səbəb olub. Bu baxımdan dövlət qərarlarında vətəndaşların daha fəal rol almaq istəyi zaman keçdikcə təmsilçi demokratiyanın birbaşa demokratiyaya keçməsinə səbəb olmuşdur. Elektron demokratiya kimi bir modelin formalaşmasında iştirak edən əsas amillərdən biri də internet, texnologiyanın sürətli inkişafı və idarəetmədə artan reaksiya ilə, siyasi sistemə birbaşa təsir etmək istəyidir. İnteraktiv texnologiya, vətəndaşların təmsil olunması sistemdə yaranan problemlərin elektron mühitə ötürülməsinə imkan yaradır. Elektron demokratiyanın bir model kimi formalaşmasında yer alan əsas elemetlərdən ikisini qeyd edə bilərik: internet texnologiyalarının sürətlə inkişafı və siyasi sistemə birbaşa təsir etmək istəyidir. (Çokluk N.C. Özdemir M., 2019)

Rəqəmsal informasiyanın təsiri altında dövlət idarəçiliyi anlayışının dəyişməsi e-hökumət, e-demokratiya və e-idarəçilik kimi yeni anlayışların yaranmasına səbəb olmuşdur. Özəl sektor və dövlət, e-hökumət və vətəndaşlar arasında qarşılıqlı münasibətlərin, tərəflərin istifadə etdikləri xidmətlər və elektron mühitdə dövlət funksiyaları ilə bağlı qarşılıqlı əlaqələrin yeni mühitə daşınması və istifadə edilməsi təmin olunması ilə vətəndaşların iştirakını təmin edir.

Elektron demokratiya anlayışında əsasən iki əsas məqsəd var: Birincisi, siyasi proses və dövlət xidmətləri haqqında məlumat əldə edə bilməkdir. İkincisi, passiv məlumat əldə etməkdən fəal vətəndaş iştirakına keçiddir. Bu, vətəndaşların məlumatlandırılması deməkdir, və bunun nəticəsində vətəndaşları təmsil etmək, vətəndaşların seçkilərdə iştirakını təmin etmək, məsləhət vermək və vətəndaşı cəlb etməklə mümkündür. (Güngör S., 2014)

Elektron demokratiya tətbiqində informasiya və kommunikasiya texnologiyalarından (İKT) istifadə və onun yaratdığı strategiyalar "demokratik aktyorlar" tərəfindən həyata keçirilir. Bu seqment; hökumətlər, vətəndaşlar, siyasi partiyalar və müvafiq qruplar, media (və daha böyük portallar), seçilmiş hakimiyyət orqanları, qeyri-hökumət təşkilatları, beynəlxalq icma təşkilatları kimi maraqlı tərəflərdən ibarətdir.(Güler T. Şahnagil S., 2017) İnteraktivlik siyasi aktorların virtual "arenada" siyasi kommunikasiya və ictimai rəylə məşğul olmaq qabiliyyətidir. Bu, onlara asanlıqla iştirak etməyə imkan verir. Beləliklə, partiyalar daha şəffaf və çevik bir quruluşa malikdirlər. Transformasiya, seçki və digər kampaniyalar vətəndaşlara yaxın və rəqəmsal bir forma alır. Artan sürətlə dəstək vasitəsilə iştirak səviyyəsinin yüksəldilməsi tendensiyası var. İnternetlə birlikdə ortaya çıxan iştirakçı demokratiya ekspertlərin və elitanın qərar qəbul etmə monopoliyasını zəiflədir və həmçinin aradan qaldırır. İnteraktiv media, qoruma altında anonimləşdirməni təmin edir, iştirakçılar üçün qrup əlaqələrini inkişaf etdirmək, məlumat istehsal etmək və paylaşmaq imkanları, demokratik iştirakını artırır. (Güngör S., 2014)

Avropa Şurasının elektron ərizə, e-iştirak, e-səsvermə, e-qanunvericilik, e-vasitəçilik, e-mühit, e-ədliyyə, e-məsləhətləşmə, e-müəssisə, e-sorğu kimi tətbiq sahələri üzrə üzvləri var. İspaniyada Avropa Şurasının təşkil etdiyi "Demokratiya Forumu"nda Elektron demokratiyanın prinsipləri verilmişdir:

- Elektron demokratiya, demokratiyanın gücləndirilməsi, demokratik təsisatlar və demokratik prosesdə İKT-nin təklif etdiyi imkanları qiymətləndirmək.
- Elektron demokratiya təkcə texnologiya ilə deyil, həm də əsasən demokratiya ilə bağlıdır. Buna görə də qabaqcıl texnologiyaların istifadəsi ilə e-demokratiyanın təkamülü, demokratik idarəetmə prinsiplərinə və təcrübələrinə uyğun olaraq saxlanılmalıdır.

- Elektron demokratiya həm də rəqəmsal uçurum və elektron ayrı-seçkilik kimi risklər daşıyır. Güclü risk qiymətləndirməsi, risklərin idarə edilməsi tədbirləri və davamlı monitorinq və siyasi iradə, o cümlədən təkmil mexanizmlərlə həll edilməlidir.
- Elektron demokratiya azad və ədalətli seçkilər də daxil olmaqla fundamental demokratik prinsipdir.
- İnsanlar elektron demokratiyaya yalnız şəxsi məlumatları və məlumatlarının onlara qarşı istifadə edilməyəcəyinə əmin olduqda Güvənməyi bacaracaqlar.
- Elektron demokratiya siyasi və demokratik proseslərə azalan marağı düzəltmək məqsədi daşıyır.
- Elektron demokratiya insanlara demokratik prosesin hər bir mərhələsində daha çox iştirak etmək imkanı verir. (Güler T. Şahnagil S., 2017)
- onlayın rejimdə ictimai-siyasi mövzuda məsələlərin və sosial əhəmiyyət kəsb edən problemlərin kollektiv müzakirəsi mexanizmləri;
- vətəndaşların təşəbbüslərinin həyata keçirilməsi mexanizmləri; (Əliquliyev, 2014)

Digər tərəfdən, e-hökumət və e-demokratiyanın fərqləndiyi məqamlara toxunmaq tələb olunur. Vətəndaşlara dövlət xidmətlərinin göstərilməsi və onların səmərəliliyinin təmin edilməsi elektron hökumət və İKT-nin istifadəsində xərclərə qənaət kimi məsələlər nəzərə alır. Elektron demokratiya siyasi qərarların qəbulu proseslərinin, idarəçiliyin genişləndirilməsidir. Bu, proseslərə yeni xərclərin tətbiqi kimi vəziyyətlərə səbəb ola bilər. Yenə elektron hökumət İKT və ictimai strukturlarla rəsmi proseslərin asanlaşdırılmasına diqqət yetirir. Elektron demokratiya daha çox vətəndaşlar və dövlət siyasətçiləri arasında qarşılıqlı əlaqəli münasibətlərə və ünsiyyətə diqqət yetirir. Buna görə də, e-hökumət daha çox səmərəliliyə aid olsa da, e-demokratiyanın daha çox səlahiyyətlərə malik olduğunu söyləmək olar. Əvvəla, e-demokratiya ayrı-ayrı şəxslərin fikirlərini rəhbərliyə çatdırmağı təklif edən danışıqlar sahəsidir. Burda elektron forumlar, sorğular, e-poçt sistemləri kimi alətlər vasitəsilə fikir mübadiləsi həyata keçirilir, problemlər müəyyən edilir, tələb və şikayətlər bildirilir, geniş auditoriya ilə internet üzərindən təşkil edilən imza kampaniyaları qısa müddətdə bir araya gəlmə fürsəti təmin edir. O, siyasət prosesində qərarlara rəhbərlik etmək və ya etiraz etmək imkanlarını təmin edir. Sözügedən prosesin maraq qruplarına və ya bu qrupların internet saytlarına üzv olmaq yolu ilə həyata keçirmə variantları daha təsirli bir təşkilat təmin edə bilər. İnstitusional və psixoloji sərhədləri aradan qaldırmaqla İKT fərdə imkan verir, məhdudiyyətlərdən qismən müstəqillik təmin edir və internetə çıxışı olan şəxslərə özünü ifadə edir. Onlara imkanlar təqdim etməklə onları gücləndirir. Biliyə və danışığa sahib olmaq siyasətin iştirakçısı olmağın məcburi şərtdi deməkdir. Buna görə də, İKT fərdlərə siyasətin iştirakçısı olmaq imkanı verən bir vasitədir. Elektron demokratiya çərçivəsində elektron hökumət modelinə keçid dövlətin dövlət xidmətlərini göstərməsinə imkan verəcək.(Güler T. Şahnagil S., 2017)

**NƏTICƏ**

İnformasiya-kommunikasiya texnologiyalarının inkişafı, idarəetmə əsasında dövlət, vətəndaş cəmiyyəti ilə özəl sektor arasında münasibətlərə yeni ölçü əlavə etdi. Texnologiyanın təmin etdiyi imkanlarla informasiyaya çıxış asanlaşdı, ünsiyyət yaxşılaşdı və dövlət və vətəndaş arasında olan əlçatmaz proseslər aradan qaldırılaraq əməliyyatlar avtomatlaşdırıldı. XXI əsrdə informasiya cəmiyyətinin idarə olunmasına imkan verəcək dövlət strukturu elektron hökumət tətbiqlərində təcəssüm olunur. İnformasiya cəmiyyəti, əvvəl bir çox cəhətdən ictimai anlayışlardan fərqli olsa da, siyasi anlayış baxımından, təmsilçi demokratiyadan kənara çıxıb və iştirakçı demokratiyanı ön plana çıxarıb. Elektron transformasiya hökumətə, biznesə və digər təşkilatlara eyni vaxtda təsir göstərir. Bunun fərdlərdə anlayış dəyişikliyinə səbəb olacağı gözlənilir. Bu dəyişiklik vətəndaşların əhəmiyyəti, habelə təklif olunan elektron xidmətlərin sayı və keyfiyyəti, istifadəyə yararlılığını təmin etməkdədir. Siyasətlərdə səmərəlilik və effektivlik səviyyəsinin artırılması, şəffaf və hesabatlılığın təmin edilməsi idarəetmənin əsas məqsədi olmuşdur. İnformasiyaya çıxışın təmin edilməsi və informasiyaya passiv girişdən fəal vətəndaş iştirakına keçid bir gözləntiyə çevrilmişdir. Elektron demokratiya çərçivəsində elektron hökumət modelinə keçid dövlətin dövlət xidmətlərini göstərməsinə imkan verir.

Demokratik proseslərdə informasiya-kommunikasiya texnologiyalarından istifadənin artırılması aktiv iştirak kimi bir çox üstünlükləri təmin edir. Elektron demokratiya və e-hökumət tətbiqlərinin də

müxtəlif mənfi cəhətləri var. Bu problemlərdən ən mühümü təhlükəsizliyin təmin edilməsidir. Yenə qeyri-kafi infrastruktur, bu texnologiyalardan istifadə imkanlarının olmamasıdır. Dövlət idarəçiliyində məlumatların məxfilik problemi kimi müxtəlif problemlərlə üzləşirik. Bununla belə, elektron demokratiya təmsilçi demokratiyanın öhdəsindən gəlmək lazım olduğuna inamı yayır. Bu, demokratiyanın legitimliyini şübhə altına alır. Bu texnoloji tətbiqlər hüquq müdafiəçiləri tərəfindən tənqid edilir Şəxsi həyatı təhdid etdiyi üçün tənqid olunur.

**ƏDƏBIYYAT SIYAHISI**

1. Əliquliyev R. Yusifov F., Elektron demokratiyanın formalaşdırılması mexanizmləri və elektron vətəndaş problemləri, "Elektron dövlət quruculuğu problemləri" I Respublika elmi-praktiki konfransı. 2014. s.208-210
https://ict.az/uploads/konfrans/GOOGLE_SCHOLAR_e-gov/60R.Alg_F.Yus.pdf
2. Çokluk N.C. Özdemir M., Demokrasi ve Siyasal Katılımda Yeni Bir Boyut: Elektronik Demokrasi ve Elektronik Seçimler. SADAB 3rd International Social Research and Behavioral Sciences Symposium. 2019. s. 94-119
https://www.researchgate.net/publication/341385274_Demokrasi_ve_Siyasal_Katilimda_Yeni_Bir_Boyut_Elektronik_Demokrasi_ve_Elektronik_Secimler
3. Gönül A.F., Siyasi Partiler Ve E-Demokrasi, Ankara. 2021.239 s.
4. Güler T. Şahnagil S., Dijital Demokrasi ve Yönetişim İlişkisi Çerçevesinde E-Demokrasi/E-Devlet Uygulaması. Journal of Emerging Economies and Policy. 2017. s.16-29
https://dergipark.org.tr/tr/download/article-file/430138
5. Güngör S., E-Demokrasi: Umutlar ve Riskler, İletişim Kuram ve Araştırma Dergisi. 2014. s. 69-89
https://dergipark.org.tr/en/download/article-file/1975404

# POST PANDEMİYA DÖVRÜNDƏ RƏQƏMSAL DÖVLƏTƏ KEÇİD

**ELŞAD, ƏLIYEV**
Bakı Mühəndislik Universiteti
İqtisadiyyat və İdarəetmə / Elektron idarəetmə
eeliyev40@std.beu.edu.az
BAKI, AZƏRBAYCAN

**XÜLASƏ**

İnformasiya texnologiyalarının sürətli inkişafı əsrində kompüterlər, mobil telefonlar və digər cihazlar gündəlik həyatımızda üstünlük təşkil edən gücə çevrilib. Belə üsullar olmadan hamilə qalmaq mümkün deyil. İnformasiya texnologiyaları kompüter texnologiyası sahəsinə aiddir.

İnformasiya texnologiyaları 20-ci əsrin 1960-cı illərində öz zirvəsinə çatdı. Bu dövrdə informasiya sistemlərinin ilk inkişafı və təkmilləşdirilməsinə başlanıldı. 1990-cı illərdə informasiya texnologiyalarının sürətli inkişafı İnternetin yaranması, yeni proqramların və sistemlərin istehsalı və qloballaşma prosesi ilə aydın görünür. Hazırda informasiya sektoru qlobal sənaye mənzərəsinin önündədir.

Post-pandemiya dövründə rəqəmsal dövlətə keçid dünyanın bir çox ölkələrində bir prioritet halına gəlmişdir. Pandemi zamanı, rəqəmsal texnologiyaların önəmi daha da artmış, onların tətbiqi insanların həyatını dəyişdirmişdir. Bu dövrdə rəqəmsal dövlətə keçid bir çox sahədə həyata keçirilmiş və mövcud iqtisadi və sosial infrastrukturları dəyişdirmişdir.

İlk olaraq, sağlık sistemi dəyişiklikə uğramışdır. Telemeditsina və təşhis prosedurlarının rəqəmsallaşdırılması daha effektiv xidmət təminatına imkan verir. İnsanlar təcili və normal sağlamlıq xidmətlərinə daha sürətli və asan yolla çatmaq imkanına malik olmuşdur.

Rəqəmsal dövlət, iş sahəsində də irəliləyir. Uzaq iş yeri modeli yayğınlaşıb, çox sayda şirkət iş proseslərini rəqəmsallaşdırır və işçilərə evdən iş imkanı təqdim edir. Bu, işgücünün mobil və elastik olmasına imkan verir.

Həmçinin, rəqəmsal məlumatlar və analitika, idarəetmə qərarlarını dəstəkləyir. Dövlət orqanları, məlumatları analiz edərək sosial və iqtisadi müəssisələrin daha sürətli və effektiv cavab verə bilər.

Böyük məlumat analitikası və yapay intellekt texnologiyaları, problemləri daha sürətli həll etməyə kömək edir.

Lakin, rəqəmsal dövlətə keçid prosesi bəzi əlamətlərə diqqət etməyi tələb edir. Məsələn, məxfiyyətlərin qorunması və internet təhlükəsizliyi, rəqəmsal dövlətin əsas prioritetlərindən biridir. Həmçinin, bütün ictimai qrupların, texnologiyaya əlverişli olmayanları nəzərə alaraq, birləşdirilməsi vacibdir.

Ümumi olaraq, rəqəmsal dövlətə keçid, pandemiyanın müəyyən etdiyi dəyişiklikləri nəzərə alaraq, cəmiyyətin daha sürətli, qabaqcıl və əlverişli bir şəkildə fəaliyyət göstərməsinə imkan verir. Bu məqalədə pandemiya sonrası dünyada rəqəmsal dövlətə keçidin əhəmiyyətini və potensialını aydın şəkildə təqdim edir, bu da modern cəmiyyətin inkişafında rəqəmsal transformasiyanın önəmini vurğulayır.

**AÇAR SÖZLƏR: elektron hökumət, diqitallaşma, post pandemika**

**KEYWORDS: electronic government, digitalization, post pandemic**

## GIRIŞ

Dünya İqtisadi Forumunun açıqladığı araşdırmaya görə, yeni koronavirusun geniş yayılmasının qarşısını almaq üçün dünya üzrə işləyən əhalinin 93%-i 2020-ci ilin ortalarına qədər işdən çıxmalı olacaq. Bununla belə, iş yerindən kənarda internet idarəçiliyindən davamlı istifadə rəqəmləşdirmə və avtomatlaşdırma problemlərini daha aktuallaşdırıb, çünki onlar çoxdan gündəlik həyatımızın zəruri bir hissəsinə çevrilib. Əslində, epidemiyadan əvvəlki onillikdə iş proseslərinin təbiəti ilə bağlı davamlı söhbətlər uzaqdan idarəetmə və daha avtomatlaşdırılmış iş rejimləri kimi mövzular üzərində cəmləşdi. (Whiting, 2020)

COVID-19 epidemiyası artıq müəyyən edilmiş əmək qanun və qaydalarına dəyişikliklərə səbəb olub. Bu dəyişikliklər təkcə işçi qüvvəsinin müntəzəm prosedurlarına deyil, həm də əmək münasibətləri prinsiplərinin təşkilinə təsir göstərir. Bu nöqteyi-nəzərdən, bütün dünyanı əhatə edən qlobal sağlamlıq probleminin uzunmüddətli sosial-iqtisadi nəticələri var və əmək tətbiqi paradiqmaları buna uyğun olaraq dəyişməlidir. Nəticə etibarilə, böhrandan yaranan yeni keyfiyyət standartları iş yerində prosedurların necə həyata keçirildiyini tənzimləyən normaları dəyişdirir. Pandemiyaya cavab verməyə gəldikdə, beynəlxalq biznes onlayn keçid, davamlı alternativ yollar və iş tapşırıqlarının idarə edilməsi mexanizmləri və formalarında avtomatlaşdırmanın sürətləndirilməsinə diqqət yetirir. Tədqiqatlar göstərir ki, epidemiya başlayandan bəri müəssisələr iş prosedurları və cədvəlləri ilə bağlı yeni prosedurları qəbul etməyə can atırlar. Avtomatlaşdırma büdcənin azaldılmasına səbəb olsa belə, işəgötürənlər "Future of Jobs Research 2020" araşdırmasına görə, işçi qüvvəsinin 50%-ə qədərini robotlar və texnologiyanın xeyrinə yenidən yerləşdirə biləcəklərini gözləyirlər. Bütövlükdə, bu prosesin müəyyən vəzifələrin ləğvi ilə nəticələndiyi, eyni zamanda yeni əmək xidmətlərinin əhəmiyyətinin artması aydındır. Bununla belə, şirkətlərin yalnız 21%-i işçi heyətinə bacarıqların artırılmasında köməklik göstərə bildiyini iddia edib. Bunun əksinə olaraq, insan kapitalına sərmayə qoyan işəgötürənlərin 66%-i işçilərin təkmilləşdirilməsinin keçid mərhələsinin müsbət nəticə verəcəyinə inanır. Bu tapıntılar unikal kəmiyyət və keyfiyyət metodologiyasından istifadə etməklə dünya miqyasında tanınmış biznes liderləri və direktorları, eləcə də ekspertlər və insan resursları mütəxəssisləri arasında keçirilmiş sorğulara əsaslanır. (Whiting, 2020)

Bu baxımdan, yuxarıda qeyd olunan tədqiqat sənədi növbəti dəfə belə nəticəyə gəlir ki, beş il ərzində texnoloji inkişafın gətirdiyi yeni məşğulluq perspektivləri bu istiqamətdə hər hansı bir geri çəkilməni kompensasiya edəcəkdir. Bununla belə, iqtisadi böhranın göstərilən prosesin ümumi irəliləyişinə əsas maneə olduğunu nəzərə almaq vacibdir. (Whiting, 2020)

Əslində, dördüncü Sənaye İnqilabı texnologiyanın sürətlə inkişaf edən təbiətini əks etdirmək üçün əməyin təşkili üsullarını dəyişdirmək ehtiyacı ilə yanaşı, istehsal prosesinin və iş performansının daha böyük qlobal rəqəmsallaşması və robotlaşdırılması ilə xarakterizə olunur. COVID-19 pandemiyası indi bu proses üçün əlavə katalizator rolunu oynayır. Bu baxımdan, bizneslərin öz işçi qüvvəsini azaltması qaçınılmaz olsa da, bunun prosesi alternativ əmək növləri və deməli, yeni peşəkar atributlar haqqında yeni tələblərin yaranması üçün qapı açır. Başqa cür desək, şərait adi əmək yanaşmasını əvəz edən yeni texnika və bacarıqların yaranmasına məcbur edir. Ona görə də məntiqi davamlılıq çərçivəsində iş yerində yeni sektorların, peşələrin, vəzifələrin formalaşması bütün prosesin tərkib hissəsi kimi qəbul edilir.

## TƏDQIQAT METODU

### Texnoloji inkişafin diqətində

İşəgötürənlər 2025-ci ilə qədər yaradılan yeni vəzifələrin və lazımsız rolların faizinin 7,8%-dən 13,5%-ə yüksələcəyini gözləyirlər. Əmək bölgüsündə insanlardan maşınlara keçidin bu vaxta qədər dünya üzrə 85 milyon iş yerinin (vəzifə/rolun) itirilməsi ilə nəticələnəcəyi proqnozlaşdırılır. Paralel olaraq, insandan alqoritmik qərarverməyə keçid və yeni əmək bölgüsü nəticəsində müəssisə və müəssisələrdə 97 milyon yeni iş yerinin yaradıla biləcəyi düşünülür.

Bütün bunları nəzərə alaraq belə bir nəticəyə gəlmək olar ki, növbəti beş il ərzində peşəkar bacarıqların uyğunluğu göstəriciləri ilə iş yerlərinin inkişaf edən xüsusiyyətləri arasında daha bariz fərq olacaq. Bu səbəbdən, indiki və gələcək üçün müvafiq iş bacarıqlarının yenilənmiş siyahısı işçilərin qabiliyyət atributları, eləcə də məşğulluq müddətində ərizəçiyə təqdim olunan daim genişlənən ehtiyaclar spektri ilə müəyyən edilir. Burada orijinallıq və ixtiraçılıq üsulları vurğulanır. Bundan əlavə, iş proseslərində yaradıcı təşəbbüs və problemlərin həllinə mürəkkəb, analitik yanaşma çox vacibdir.

Əmək proseslərinin gələcəyinə faktiki olaraq yeni növ koronavirusla mübarizə üçün insanların adi iş rejimindən kənarlaşdırılmasının zəruri olduğu dövrdə fors-major halların idarə edilməsinin tələblərinə və yeni aspektlərinə uyğun olaraq ortaya çıxan müvəqqəti təlimatlar təsir edir. pandemiya. Pandemiya həll üsullarının davamlı mərhələyə doğru sürətlə dəyişməsinə səbəb olur. Son il yarım ərzində bir çox sektorlar üçün əlverişli şərait yaradan böhran faktoru, xüsusən də rəqəmsal əmək bazarı, onlayn xidmətlər və satış sektoru, hətta bəzi istehsal da daxil olmaqla, idarəetmənin bəzi səviyyələrində virtual sistemlərə keçidə təkan verdi.

Dünyanın ən məşhur "Böyük Dördlük" bizneslərindən biri olan PwC (PricewaterhouseCoopers) tərəfindən aparılan sorğuya görə, 2025-ci ilə qədər, ofis işçiləri və ya "ağ yaxalıq" mütəxəssisləri əsasən robotlar və avtomatlaşdırma ilə əvəzlənəcəklər. işçi qüvvəsinin demoqrafik göstəricilərinə əhəmiyyətli təsir göstərməklə yanaşı, insan resursları departamentlərinin əməliyyat prosedurlarına da gələcəkdə əlavə əhəmiyyət verir. Tapıntılar həmçinin göstərir ki, 25% ilə iş yerində uyğunlaşa bilən çeviklik liderdir, 23% ilə orijinal iş yaratmaq kimi təcrübələr ikinci yerdədir. ( Whiting,2020)

• Uzaqdan işlərin idarə edilməsi üçün şansların sayının artırılması;

• Bacarıqların inkişafı proqramlarının həyata keçirilməsi (rəqəmsal alətlər və video konfransların istifadəsi vasitəsilə iş proseslərinin sürətləndirilmiş rəqəmsallaşdırılması ilə birlikdə);

• İşin avtomatlaşdırılması sürətinin artırılması

Bununla belə, şübhəli cəhətlərdən biri peşəkar çıxışın çapı ilə bağlıdır. Maraqlıdır ki, müəyyən növ məsafədən işin idarə edilməsi bəzi sahələrdə prosesin səmərəliliyinə mane olmur; əksinə, o, pandemiyadan sonrakı dövrün aktuallığı kimi görünən onlayn idarəetmə üçün zəngin seçimlər və təcrübə təklif edir. Sözsüz ki, indiki vəziyyət bəzi sahələrin hamısına həvalə edilə bilməsə də, onların fəaliyyətinin səmərəli təşkilinə şərait yaradır. Mübahisə oluna bilər ki, böhran xüsusi uyğunlaşma tədbirləri görməyən və işin icrasında onlayn imkanlardan xeyli mənfəət əldə edən sektorlar, əsasən də müəssisələr üçün böyümə və strateji məqsədlər üçün bir növ yeni şans təqdim edir.

İnsan Resursları üzrə Baş İdarə Heyətinin məlumatına görə, COVID-19 pandemiyası zamanı işçilərin orta hesabla 44%-i uzaqdan işləyə bildiyini bildirib. İşçilərin 24%-i üçün isə əksinədir. Buna baxmayaraq, əvvəlki illə müqayisədə 2021-ci ildə ofisdə daha az saat işləmək tendensiyası iki dəfə sürətlə genişlənəcəyi gözlənilir. ( Whiting, 2020)

Ümumiyyətlə, əvvəlki illərdən aydın olurdu ki, inkişafa meylli peşələrin bir çoxu gələcək dövrün əmək bazarı tendensiyalarını proqnozlaşdırarkən proseslərin uzaqdan idarə olunması ilə həyata keçirilən peşə və rollardır. Bunların arasında onlayn idarə olunan və rəqəmsal qabiliyyətlərə ehtiyacı olan peşələr kateqoriyası həmişə xüsusilə diqqəti cəlb etmişdir; bu mövqelər indiki şəraitdə daha mühümdür. Beləliklə, pandemiya zamanı artan aktuallığı nəzərə alaraq, ofisdən kənarda işlərin və ya ev işlərinin başa çatdırılması ilə bağlı vəziyyətin növbəti illərdə yaxşılaşmağa davam edəcəyi gözlənilir. Tanınmış Apvörk (Upwork) platforması tərəfindən aparılan sorğuya əsasən, 2021-ci ildə hər dörd amerikalıdan biri uzaqdan işləyəcək. Tədqiqat həmçinin 2025-ci ilə qədər Amerika işçilərinin 22%-nin evdən işləyəcəyini proqnozlaşdırır. Bu rəqəm pandemiyadan əvvəlki dövrlə müqayisədə 87% artım deməkdir. Bundan əlavə, müəssisə və təşkilatlardakı menecerlərin 68%-nin fikrincə, autsorsing rejimi transformasiyanın ilkin mərhələsində olduğundan bu gün daha çox funksionallıq təklif edir.

**Sektora baxiş**

Mövzu ilə əlaqədar olaraq, onlayn satış və xidmət potensialının sərhədlərinin böyüdüyü bizneslərə xüsusi diqqət yetirilməlidir. Epidemiya zamanı məhsullarını onlayn satan müəssisələr, sosial-iqtisadi məhdudiyyətlər onlara heç bir təsir göstərmədiyi halda, mənfəətlərini artıra bildilər. Bu mənada, hətta pandemiya dövründə də çoxmillətli rəqəmsal ticarət şirkətləri - elektron iqtisadiyyatın nümayəndələri internet üzərindən işçiləri işə götürməyə davam etdilər.

Qlobal rəqəmsal ticarət dövrü 2020-ci ildə əhəmiyyətli dərəcədə artıb. Bu halda, iki əsas dəyişən katalizator kimi fəaliyyət göstərir: bizneslər onlayn etdikləri satışların həcmini artırır və istehlakçılar yeni şəraitdə ümumiyyətlə daha çox onlayn alış-veriş edirlər. Qlobal e-ticarət istehlakçıları COVID-19 epidemiyası zamanı 3,4 milyarda çatdı ki, bu da əvvəlki illə müqayisədə illik 9,5% artım deməkdir. Bu il göstəricinin artım həcminin 3,8 milyard fiziki şəxsi əhatə etməklə 10%-ə çatacağı gözlənilir. 2025-ci ilə qədər qlobal miqyasda 4,9 milyard onlayn ticarət iştirakçısı və ya istifadəçisi olacağı gözlənilir.

792,5 milyon fiziki şəxs və ya dünyada rəqəmsal müştərilərin ümumi sayının 33,3%-ni təşkil edən Çin hazırda bu baxımdan liderdir. Bu il ölkə onlayn ticarət satışlarında 2,779 trilyon dollar və ya ümumi dünya dövriyyəsinin 56,8%-ni yaradacaq. Hər şeyi nəzərə alsaq, Çin öz daxili pərakəndə əməliyyatlarının yarıdan çoxunu (və ya e-ticarət həcminin 52,1%-ni) rəqəmsal formada həyata keçirən ilk ölkə olmaqla tarix yazdı. Hazırda qlobal e-ticarət bazarı əməliyyatlarının 42%-i Çinin payına düşür. Maraqlıdır ki, 10 il əvvəl bu göstərici 1%-dən az idi. 2018-ci ildə ölkədə əksər ödənişlərin həyata keçirildiyi WeChat Pay geniş istifadə olunan onlayn ödəniş şəbəkəsi aylıq bir milyarddan çox aktiv istifadəçi ilə öyünür.

Onlayn ticarət kontekstində rəqəmsal satınalma göstəricilərini, yəni mobil ticarət (m-ticarət) və sosial ticarət (s-ticarət) indikatorlarını araşdıraraq hansı tendensiyanın bu istiqamətdə hərəkət etdiyini müəyyən edə bilərik. Məlumdur ki, insanların sosial şəbəkələr vasitəsilə alış-veriş etmək vərdişləri, epidemiyanın qarşısını almaq üçün xalqların tətbiq etdiyi karantin dövrlərində sosial mediaya sərf olunan vaxtın artması ilə paralel olaraq daha çox kök salıb. Çin bu məsələdə də digər xalqlardan əhəmiyyətli üstünlüyə malikdir. Beləliklə, Çin 580 milyon sosial media istifadəçisi və ümumilikdə 738 milyon internet istifadəçisi ilə gündəlik internetdən orta istifadə (2,7 saat) baxımından yalnız Yaponiyadan geri qalır. Hər bir Çin sosial media istifadəçisi hər gün iki saatdan çox sosial şəbəkələrə daxil olur. Bu kontekstdə, 2020-ci ilin sonuna olan məlumatlar Çində 357,2 milyon sosial media alıcısının (yəni, sosial şəbəkələr vasitəsilə alış-veriş edənlər) olduğunu göstərdi. 2027-ci ilə qədər Çində onlayn sosial ticarət sektorunun ən azı 103,3 milyard dollar dəyərində olacağı proqnozlaşdırılır. Bütün bu heyrətamiz məlumatlar nəzərə alındıqda, satış və xidmət sektorları da daxil olmaqla, dünya miqyasında onlayn biznes əməliyyatlarının gələcəyi ilə bağlı əldə ediləcək artım dərəcəsi haqqında proqnozlar yaratmaq asandır.

Onlayn konfranslar, görüşlər və digər tədbirlər keçirmək üçün çoxlu şanslar verən populyar platformalar, eləcə də korporativ əməliyyatların xarici idarə edilməsi üçün müvafiq rəqəmsal həllər 2020–2021-ci illərdə istifadə göstəricilərində nəzərəçarpacaq artım müşahidə etdi. Bu vəziyyət həm müəyyən edilmiş müddət ərzində müvafiq proqram təminatı və proqramlar təklif edən müəssisələrin gəlirliliyinə, həm də pandemiya zamanı peşəkar prosedurların onlayn davam etdirilməsinə zəmanət verməyə imkan verdi.

**Pandemiyanin yoxsulluğa və qlobal məşğulluğa təsiri**

İşçi əhali qrupunun üzləşdiyi çətin vəziyyət mövzunun əsas məqamlarından biridir. Pandemiyanın təsirlərinin ağır olduğu ölkələrdə bir çox iş yerləri bağlanır, bu da insanların gəlirlərini itirməsinə və iş imkanlarından məhrum edilməsinə səbəb olur. 2020-ci ildə əmək gəlirlərinin qlobal itkisi (dövlət iqtisadi dəstək tədbirlərindən əvvəl) 3,7 trilyon dollar, 8,3 faiz azalma və qlobal ümumi daxili məhsul (ÜDM) göstəricisini üstələdiyi təxmin edilirdi. Əmək Təşkilatının (BƏT) iş mühiti hesabatı. Bu, 4,4% təşkil edib. (Monitor, 2020)

2020-ci ildə 8,8% dünya üzrə buraxılmış iş saatlarının göstəricisidir. Bu o deməkdir ki, iş saatlarının azaldılması 255 milyon tam ştatlı ekvivalent peşəyə təsir göstərə bilər. Bölgəyə görə, Cənubi Asiya, Cənubi Avropa, Latın Amerikası və Karib hövzəsi ölkələrində iş saatlarında ən böyük azalma müşahidə olunub. Bununla belə, daha yumşaq sosial bağlanma tədbirləri tətbiq olunduğundan, Şərqi Asiya və Afrikanın bir çox yerlərində iş saatlarının itkisi çox az hiss olunurdu. Beləliklə, 2020-ci ildə proqnozlaşdırılan iş saatı itkisi son qlobal maliyyə böhranından təxminən dörd dəfə çoxdur. Bu o deməkdir ki, fərdlər gəlirlərini və xərclərini necə bölüşdürdüklərini azaltmağa məcburdurlar. Dünyada

yoxsulluğun ümumi dərəcəsi bu tendensiyadan əhəmiyyətli dərəcədə təsirlənmişdir. Problemin sosial bərabərsizlik komponenti aydın görünür. 2021-ci ilə qədər dünyada 143-163 milyon insanın epidemiya nəticəsində yoxsullaşacağı proqnozlaşdırılır. 2020-ci ildə eyni göstəricinin 119 ilə 124 milyon nəfər arasında olduğu təxmin edilirdi. (Monitor, 2020)

İqtisadi tənəzzüldən təsirlənən ən həssas qrup aşağı maaşla işləyənlər, az təhsilli və ya heç olmayan, qadınlar və gənclər, müvəqqəti müqavilələrlə işləyənlər, kiçik və orta biznesdə işləyənlər və ya öz-özünə işləyənlərdir. Davam et. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının Yetkinlərin Bacarıqlarının Beynəlxalq Qiymətləndirilməsi Proqramına (PIAAC) daxil olan 35 inkişaf etmiş və inkişaf etməkdə olan ölkənin məlumat bazasına və Beynəlxalq Valyuta Fondunun təqdim etdiyi sənədə əsaslanan araşdırmaya görə, 97,3 milyon işçi və ya 15% 2020-ci ildə həmin ölkələrdə məcburi məzuniyyət və ya işdən çıxarılma ilə üzləşib. Bununla belə, maraqlıdır ki, sənəd işçi qrupunun cəmləşdiyini və pandemiyadan ən çox təsirlənən sektorlardan (nəqliyyat və nəqliyyat, qida xidmətləri, topdan və pərakəndə satış və s.) (BƏT, 2020).

**Pandemiya dövründə azərbaycanda rəqəmsallaşma**

Bir sözlə, aydındır ki, sosial-iqtisadi liderlər rəqəmsal dövrü qəbul etdikdə və pandemiya vəziyyətlərinə cavab vermək üçün onlayn platformalardan istifadə etdikdə daha yaxşı böhran idarə etmə bacarıqlarına sahib olurlar. Bu dövrdə maliyyə sənayesini və insanların onlayn şəkildə çoxlu bizneslə məşğul olmaq meylini izləmək həm də karantin qaydalarına riayət etməyi təşviq edir. Ekspertlərin fikrincə, iqtisadi əməliyyatların rəqəmsallaşması kölgə iqtisadiyyatının tənəzzülünə şərait yaradır. Bu hərəkətlər onu deməyə əsas verir ki, 2019-cu illə müqayisədə rəqəmsal mobillik pandemiyası dövründə Azərbaycanda onlayn ödənişlər demək olar ki, artıb. Bu mənada bu xalqın qonşularından xeyli geri qaldığı görünür; buna baxmayaraq, virus yayıldıqdan sonra Azərbaycanın nağdsız ödənişlərdə payı 10%-dən 20%-ə yüksəlib. Rəqəmsal platformalarda edilən alış-veriş üçün ölkə üzrə mövcud çatdırılma xidmətlərinin sayının əhəmiyyətli dərəcədə artması insanların onlayn vərdişləri mənimsəməsinin sürətlə artmasının göstəricilərindən biridir.

Bundan əlavə, qlobal sağlamlıq böhranı zamanı bütün ölkə miqyasında onlayn iş yerinə keçid zamanı əhəmiyyətli miqdarda sosial, mədəni və iqtisadi fəaliyyətin onlayn şəkildə həyata keçirildiyi yaxşı qəbul edilir. Beynəlxalq Muzeylər Şurasının 2020-ci ildə Azərbaycanda apardığı sorğuya əsasən, ölkədəki muzeylərin 13,1%-i bağlanıb, 80,3%-i hələ də onlayn, 6,6%-i isə fiziki olaraq qalır. Əlavə araşdırmalar göstərir ki, muzeylərin 98,4%-i COVID-19 zamanı işçiləri işdən çıxarmayıb. Qeyd edək ki, karantin müddətində muzey əməkdaşlarının əsas hissəsi onlayn təlim kurslarında və konfranslarda iştirak edib. Çox güman ki, bağlanacaqları təqdirdə, əldə etdikləri ziyarətçilərin sayına güvənən muzeylər, yekun rəqəmlərin nə qədər müsbət görünməsindən asılı olmayaraq, qaçılmaz olaraq dövlət büdcəsinə töhfə verəcəklər. Bu, bir çox müəssisə və təşkilatların epidemiya şəraitində fəaliyyətinə də aiddir. Bunu nəzərə alanda aydın olur ki, böhran dövründə sosial-iqtisadi dəstək tədbirləri paketlərinin həyata keçirilməsini təmin etmək üçün dövlətin üzərinə düşən məsuliyyətin əhəmiyyətli bir hissəsi var.

Nümunə olaraq muzeyə qayıdaraq, dünyada çox sərfəli bir istiqamət olan muzey sahəsində onlayn fəaliyyətləri aktiv planlaşdırmayan və rəqəmsal marketinq alətlərindən lazımi şəkildə istifadə etməklə yeni ziyarətçilərin sayını artırmaq üçün fəaliyyət planı hazırlamayan təşkilatlar və virtual tur imkanları nəinki COVID-19 dövrünün nə vaxt başa çatacağını müəyyən edə bilməyəcək, həm də gələcəkdə oxşar vəziyyətlərlə qarşılaşdıqda böyük itkilərə məruz qalmaq riski ilə üzləşəcək. Nüfuzlu Luvr muzeyinin ötən il iki dəfə uzun müddət bağlanmasına səbəb olan yeni Corona virusunun 2020-ci ilə qədər quruma 90 milyon avroya başa gələcəyi proqnozlaşdırılır. Təkcə 2019-cu ildə 9,6 milyon ziyarətçi ilə muzey unikal təcrübə təqdim edir. O, bunu bir sıra maliyyə töhfəsi fəaliyyətlərini, davam edən alternativ və populyar mədəni tədbirləri və pul toplama hərraclarını özündə birləşdirən strategiyanı həyata keçirməklə edir. Muzeyin dünya əlaqələri üzrə direktoru Adel Ziani, "Gəlir və vəsait əldə etməyin yeni yollarını tapmalıyıq" dedi. Maraqlıdır ki, dünyanın hər yerində yerləşən məşhur Yapon gündəlik geyim mağazası olan Uniqlo-ya muzeyin bu istiqamətdə göstərdiyi səylərdən biri kimi Luvrun geyim kolleksiyasını dörd il müddətinə öz mağazalarında satmağa icazə verilib. Başqa bir misal, bir ingilis qrafik dizaynerinin idman geyimində muzey inventar nömrələrini və sözlərini yaradıcı şəkildə istifadə etməsidir. Əlbəttə ki, Luvrun reklam filmlərində əbədi gözəllik və universallıq ideallarını təcəssüm etdirən əməkdaşlıqlar muzeylər, qalereyalar, digər sənət yerləri, mədəni irs obyektləri və bu kimi müəssisələr üçün çox vacibdir. gəlir təmin etmək və kənar maliyyə asılılığını azaltmaq üçün xüsusilə çətin zamanlarda təhsildir. Sosial-iqtisadi kampaniyalar daha əvvəl

təsvir edilmiş sahədə çoxlu bilik və geniş baxış bucağı təqdim edir. Məlumatların zənginliyini və cəlbedici alternativlərin genişlənməsini nəzərə alaraq ənənəvi sistemlərin, qaydaların və üslubların digər sahələr və istiqamətlərlə tərəfdaşlığı çərçivəsində mübadilə və sintez formasında əməkdaşlığı nəzərə almaq vacibdir. müasir dövrdə daha çox aktuallaşmalıdır. (Hercegova, 2022)

**NƏTİCƏ**

Bir çox firmanın pandemiyanın birinci və ikinci dalğaları zamanı, iş dünyasının və əmək bazarının tarixi dəyişikliyi zamanı onlayn iş rejimləri təklif edib tətbiq etdiyini iddia etmək olar. O vaxtdan bu təcrübə geniş miqyasda fəaliyyət göstərən müəssisələr üçün standarta çevrildi. 2025-ci ilə qədər dünya üzrə işçilərin 70%-ə qədərinin ayda beş və ya daha çox gününü ofisdən kənarda keçirəcəyi gözlənilir. Bu baxımdan, keçən ildən bəri davamlı olaraq artan tendensiyanın bu artımı davam etdirəcəyi gözlənilir. il.

Mürəkkəb özünü idarə edən robotların hətta az sayda həkim tərəfindən yerinə yetirilən əməliyyat vəzifələrinin bir hissəsini əvəz etdiyi bir dövrdə, əvvəllər daha sürətli həyata keçirilən prosedurlar indi elektronlaşdırma və avtomatlaşdırma və ya katiblərin işdən çıxarılması ilə sürətləndirilir. texnologiyanın lehinə. Etiraf etmək vacibdir ki, eyni zamanda, kibertəhlükəsizliyin yüksək standartını qorumaq ildən-ilə artan tələbatdır. Ümumiyyətlə, istehsal və xidmət obyektlərində prosesin davam etməsi nəticəsində robotlar aşağı maaşlı və aşağı funksiyalı işçi qüvvəsini daha tez-tez əvəz edir. Qeyd etmək lazımdır ki, vəziyyət bir tərəfdən kompüter mühəndislərinə və kodlaşdırma mütəxəssislərinə ehtiyacın artmasına səbəb olur. Süni intellekt əsasən onları əvəz edəcək. Başqa sözlə desək, kod yaza bilənə qədər bu sahələr üzrə peşəkarlar evdən və ya laboratoriyada uzaqdan işləməyə, onlayn sifarişlər qəbul etməyə, söhbətlər aparmağa və ya işgüzar əlaqələrin həyata keçirilməsi üçün lazımi çərçivələri qurmağa davam edəcəklər. hesabatlılıq öhdəliklərinin yerinə yetirilməsi üzrə mərkəzi administrasiya ilə. Digər tərəfdən, kompüter elmləri, texnologiya, mühəndislik və hesablama ilə əlaqəli peşələr böyüdükcə, sürətlə rəqəmsallaşan sənayelərlə rəqabət aparan digər peşələrə də ehtiyac duyulur. Sosial həyat tərzi və iş yerindəki irəliləyişlər və dəyişikliklər səbəbindən bir sıra sənayelərdə adi peşə öhdəliklərinə tələbat azalır və bu, ixtiraçılıq üçün barı yüksəldir. Xidmət sənayesində biznes əməliyyatları üçün onlayn sistemə keçid böhrana cavab vermək vasitəsi kimi həm indi, həm də gələcəkdə proseslərin davamlı optimallaşdırılmasını tələb edir. Belə bir ssenari özlüyündə sürətli rəqəmsal idarəetməyə zəmanət verir və yeni texnologiyalara keçidi sürətləndirir. Bu istiqamətdə sabit bir yerdən fərqli olaraq uzaqdan yerinə yetirilən, ən böyük yaradıcı potensialı özündə birləşdirən rəqəmsal yanaşma tətbiq edən və onlar üçün artan peşəkar tələbat olan rollar və vəzifələr davam edəcək. əmək bazarında əsas tendensiyalar.

Buna görə də, uzaqdan işləmə meylinin davam etməsi təəccüblü deyil, xüsusən də bəzi peşələrin xidmət sənayesində müəyyən dərəcədə tətbiqi ilə geniş funksionallıq təklif etməklə yanaşı, yüksək səviyyədə zehni diqqət və yaradıcı iş tələb etdiyini nəzərə alsaq.

COVID-19 pandemiyası ofisdən kənarda işləmə prosesini başlatdı, lakin eyni zamanda, böhrandan ciddi şəkildə təsirlənən və əhəmiyyətli ixtisarların yaşandığı sənayelərdə mürəkkəb məsələlərin olmasına baxmayaraq, digər sektorlarda iş mühiti nəinki dəyişməz qalır, həm də yüksək əmək haqqı imkanları yaradır. Bu vəziyyətdə, müstəqil peşəkarlara vurğu və onlayn işə qəbulun asanlığının çeviklik əldə etməyə fəal şəkildə can atan və onlayn fəaliyyət göstərən firmalar üçün kadr idarəçiliyindəki boşluqları aradan qaldırmaq üçün daha rahat bir atmosfer təqdim etdiyini söyləyə bilərik. Nəticə etibarı ilə, sənayenin geniş spektri üzrə bizneslər qabaqcıl, təşəbbüskar olmalı və dəyişən şəraitə və fors-major hallara tez uyğunlaşa bilməlidir. Buraya yaranan yeni bacarıq boşluqları ilə bağlı kritik qərarların qəbul edilməsi və daha effektiv və çevik iş mühitinin yaradılması daxildir. Uyğunlaşa bilən strategiyaların işlənib hazırlanmasına bu baxımdan yanaşmaq lazımdır ki, bu mənada dövlət və özəl sektorun birgə səyləri problemlərin məntiqi həlli ilə nəticələnir və yerli əmək bazarı çərçivəsində əməkdaşlıq da böyük rol oynaya bilər. iş yerindəki şəraitin müvafiq tənzimlənməsi ehtimalının artırılması. Daha hərtərəfli və metodik strateji yanaşmalara əsaslanan, sferalararası koordinasiya elementlərindən ən yaxşı şəkildə istifadə edə bilən və işlək mexanizmləri sürətlə müəyyən edə bilən konsepsiya və icra planlarının yaradılması bu istiqamətdə məqsədəuyğun hesab edilə bilər. proqnozlardan kənarda ortaya çıxan yeni xüsusiyyətlər.

**ƏDƏBIYYAT SIYAHISI**
1. Whiting, K. (2020). Future of Jobs Report-2020. In World Economic Forum.
2. Lipsey, R. G., Carlaw, K. I., & Bekar, C. T. (2005). Economic transformations: general purpose technologies and long-term economic growth. Oup Oxford.
3. Monitor, I. L. O. (2020). COVID-19 and the world of work. Updated estimates and analysis, 27.
4. Gordon, R. (2017). The rise and fall of American growth: The US standard of living since the civil war. Princeton university press.
5. Hercegová, K. (2022). The transition towards the digital economy after the COVID-19 pandemic.

# AZƏRBAYCAN AVROPANIN ENERJI TƏHLÜKƏSIZLIYININ TƏMIN EDILMƏSINDƏ ROLU VƏ IŞTIRAKI

**RÜBABƏ MIKAYILOVA**
Bakı Slavyan Universiteti
Beynəlxalq münasibətlər və Diplomatiya
mikayilova.rubaba@mail.ru
BAKI, AZƏRBAYCAN

## XÜLASƏ

Müstəqilliyin ilk illərində Azərbaycanın xarici siyasətinin əsas istiqamətlərini məhz enerji siyasəti təşkil edirdi. Bu istiqamətlər özündə iki əsəs xüsusiyyəti əks etdirirdi. Birincisi, Azərbaycanın öz daxili enerji təhlükəsizliyinin təmin etməsi, ikincisi isə digər dövlətlərin ölkəmizə verə biləcəyi töhvə ilə bağlı olması. Ölkəmiz milli maraqlara müvafiq olaraq həyata keçirilən praqmatik siyasət nəticəsində miqyasına görə regional, əhəmiyyətinə görə isə qlobal xarakterli transmilli layihələrin mərkəzi oyunçusu kimi çıxış edir. Qarşılıqlı investisiya qoyuluşunun artması, yeni əməkdaşlıq platformalarının gündəmə gətirilməsi, enerji resurslarının, karbohidrogen ehtiyatlarının əlverişli və təhlükəsiz marşrutlarla daşınması regional miqyasda səmərəli nəticələr əldə etməyə imkanlar yaratmışdı. Müstəqil enerji siyasəti ölkəmizin beynəlxalq arenadakı mövqeyini, həmçinin regionun və regionətrafı coğrafiyanın geostrateji təhlükəsizliyini daha da gücləndirir. Çünki, Azərbaycanın praqmatik enerji siyasəti regional və qlobal miqyasda enerji təhlükəsizliyinə xüsusi əhəmiyyət verən aparıcı dövlətlər üçün mühüm önəm daşıyır. Xüsusilə Azərbaycanın təşəbbüsü və iştirakı ilə reallaşdırılan enerji layihələrinin geostrateji - siyasi və iqtisadi əhəmiyyəti beynəlxalq miqyasda olduqca yüksək qiymətləndirilir.

**AÇAR SÖZLƏR : xarici siyasət, enerji təhlükəsizliyi, beynəlxalq layihələr**
**KEYWORDS: Foreign policy, energy security, international projects**

## GİRİŞ

Azərbaycan Respublikası 1991-ci ildə dövlət müstəqilliyini bərpa etdikdən sonra iqtisadi sahədə öz suveren hüquqlarını gerçəkləşdirməyə və müstəqil siyasət aparmağa başlamışdır. Bu siyasətin başlıca istiqamətlərini müxtəlif mülkiyyət formaları əsasında yaradılan iqtisadi sistem, bazar iqtisadiyyatına keçid və dünya iqtisadiyyatına inteqrasiya təşkil etmişdir. Müstəqilliyin ilk illərində Azərbaycanın xarici siyasətinin ən vacib istiqamətlərindən birini məhz enerji siyasəti təşkil etmişdir. Azərbaycanın enerji siyasətinin bir neçə istiqaməti mövcuddur ki, bunlardan daha vacib olan ikisini xüsusi qeyd etmək mümkündür. Beləliklə həm Azərbaycanın enerji ehtiyatlarının hasilatı, həm də bu ehtiyatların beynəlxalq bazarlara çıxarılması yolları ilə bağlı yeni imkanların yaradılması böyük əhəmiyyət daşıyır. Hasilatı və Avropa bazarlarına çatdırılması məqsədi ilə reallaşdırılmış iri layihələr Avropanın neft və qazla təminatında Azərbaycanın önəmli yer tutmasına şərait yaratmışdır. Qərb

analitikləri qeyd edirlər ki, Xəzər hövzəsində böyük neft şirkətlərilə ən yüksək əməkdaşlıq əlaqələri yaradan ölkə Azərbaycandır və Qərbin enerji daşıyıcılarının istismar edilməsində Azərbaycanla əməkdaşlıq etməsi yüksək qiymətləndirilir. Azərbaycan hökumətinin həyata keçirdiyi siyasət nəticəsində bu gün qlobal enerji təhlükəsizliyinin təmin olunmasında böyük layihələrə imza atılıb.

**TƏDQIQAT METODU**

Analiz, elmi prinsip, kultroloji və tarixi metod.

Bu gün dünya siyasətinin aktual məsələlərindən biri enerji təhlükəsizliyidir. Enerji qaynaqlarının əhəmiyyəti artır və sürətlə böyüyən dünya iqtisadiyyatı bu qaynaqlara əvvəlkindən daha çox ehtiyac duyur. Artıq strateji enerji mənbələri qlobal geosiyasi vəziyyətə təsir edən amillərdən birinə çevrilib. Bunun təbii bir nəticəsi olaraq zəngin enerji qaynaqlarına sahib olan ölkələr iqtisadiyyat və geosiyasi baxımdan əsas mövqedədirlər. Enerji təhlükəsizliyini müəyyən bir ölkənin və ya bütövlükdə dünya birliyinin kifayət qədər enerji təchizatı ilə təmin edilməsi kimi müəyyənləşdirə bilərik. Təhlükəsizlik tədbirlərinə enerji mənbələrinə çıxışın təmin edilməsi; texnologiyaların inkişafı və tətbiqinin təmin edilməsi; enerjinin istehsalı, saxlanması və ötürülməsi üçün kifayət qədər infrastrukturun yaradılması; qüvvədə olan tədarük müqavilələrinin təmin edilməsi və əlverişli qiymətlərlə enerjiyə çıxışı aid edə bilərik. Azərbaycan Respublikası da zəngin enerji ehtiyatlarına, inkişaf etmiş yanacaq və enerji infrastrukturuna və enerji sisteminə malik ölkələrdəndir. Azərbaycanın enerji təhlükəsizliyi siyasətinin əsasları öz başlanğıcını 1994-cü ildə imzalanmış "Əsrin müqaviləsi"ndən götürmüşdür. "Əsrin müqaviləsi" Azərbaycanın xüsusilə enerji sahəsində həyata keçirəcəyi məqsədlər və prespektivli gələcək qurmaq baxımdan ən uğurlu addımı olaraq tarixə yazmışdı.

"Əsrin müqaviləsi"nin ilk günlərindən başlayaraq Azərbaycan Beynəlxalq Əməliyyat şirkəti yaradıldı və təsdiq olunmuş vahid proqram üzrə ARDNŞ ilə birgə işlərə başlandı. Bu saziş sonradan dünyanın 19 ölkəsinin 41 neft şirkəti ilə 30-dək sazişin imzalanması üçün yol açdı. "Əsrin müqaviləsi" həm karbohidrogen ehtiyatlarının miqdarına, həm də qoyulan sərmayələrin həcminə görə dünyada bağlanan ən iri sazişlər siyahısına daxil olmuşdur. İmzalanmış neft sazişləri üzrə Azərbaycanın neft sənayesinin inkişafı üçün nəzərdə tutulmuş 64 milyard ABŞ dolları qoyuluşunun 57,6 milyardı dəniz yataqlarının mənimsənilməsinə və perspektivli strukturlarda axtarış-kəşfiyyat işlərinin aparılmasına yönəldilmişdir. 1995-ci ildə ilkin neft hasilatı layihəsi çərçivəsində Çıraq-1 özülü qərb standartlarına uyğun olaraq bərpa olundu və böyük maillikli quyuların qazılması məqsədilə bu özülün üst modulu modernizə edilərək yeni qazma avadanlıqları ilə təchiz olundu. Yeni qazma qurğusu laylara horizontal quyuların qazılmasına imkan verdi. Maksimal mailliklə qazılmış A-18 (inhirafı-5500 m), A-19 (inhirafı-6300m-dən artıq) və s. istismar quyuları böyük neft hasilatı ilə işə düşdülər. 1997-ci ildə Çıraq yatağından neft hasilatına başlandı. 1994-cü il sentyabrın 20-də Bakıda Gülüstan sarayında Xəzərin Azərbaycan sektorundakı Azəri–Çıraq–Günəşli yataqlarının dərin su qatlarındakı neftin birgə işlənməsi haqqında dəyəri 7,4 mlrd. dollar olan "məhsulun pay bölgüsü" tipli müqavilə imzalandı. Müqavilə öz tarixi, siyasi və beynəlxalq əhəmiyyətinə görə "Əsrin müqaviləsi" adlanmış, təxminən 400 səhifə həcmində və 4 dildə öz əksini tapmışdır. Müqavilənin 13 milyard ABŞ dolları həcmində qiymətləndirilməsi onun nə üçün "Əsrin müqaviləsi" adlandırılması sualına verilən cavablardan biri ola bilər. "Əsrin müqaviləsi"ndə dünyanın 8 ölkəsinin (Azərbaycan, ABŞ, Böyük Britaniya, Rusiya, Türkiyə, Norveç, Yaponiya və Səudiyyə Ərəbistanı) 13 ən məşhur neft şirkəti (ARDNŞ, Amoco, BP, McDermott, UNOCAL, Lukoyl, Statoil, Exxon, Türkiyə Petrolları, Pennzoyl, ITOCHU, Ramco, Delta) iştirak etmişdir. Bu müqavilədə Böyük Britaniyanın "British Petroleum" (qoyulacaq investisiyanın 17,12 faizi) və "Ramco" (2,08 faizi), ABŞ-nin "Amoco" (17,01 faiz), "UNOCAL" (11,2 faiz), "Pennzoil" (9,81 faiz), "McDermott" (2,45 faiz), Rusiyanın "Lukoil" (10,0 faiz), Norveçin "Statoil" (8,56 faiz), Türkiyənin "Türk petrolları şirkəti"nin (1,75 faiz) və Azərbaycan Neft Şirkətinin isə 20 faiz payı var idi. Bununla da "Yeni neft strategiyası" və doktrinası uğurla həyata keçirilməyə başlandı. "Əsrin müqaviləsi" Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən təsdiq edildi və 12 dekabr 1994-cü ildə qüvvəyə mindi. İlk dəfə hesablanmış çıxarılabilən neft ehtiyatı 511 milyon ton olmuş, sonralar qiymətləndirici quyuların nəticələrinə görə bu ehtiyat 730 milyon tona çatmışdır və bununla əlaqədar yataqların işlənilməsinə tələb olunan sərmayə xərcləri 11,5 milyard ABŞ dolları qəbul edilmişdir; ümumi təmiz gəlirdən Azərbaycanın payına 80%, sərmayəçilərin payına 20% düşür.Əsrin müqaviləsinin Azərbaycan üçün əhəmiyyətləri danılmaz fakt idi. Bu özünü tarixi mənbələrdə və ölkəmizin həyata keçirdiyi layihələrdə də öz əksini tamışdır. Beləliklə 1999-cu ilin dekabrında Azərbaycanın "mənfəət nefti" ilə doldurulmuş ilk tanker dünya bazarlarına çıxarıldı. Bu

neftin satışından əldə edilən valyuta sabiq prezident Heydər Əliyev tərəfindən yaradılmış Azərbaycan Respublikası Dövlət Neft Fonduna daxil edildi. Şimal istiqamətindəki uzunluğu 231 km, diametri 720 mm olan Bakı-Novorossiysk neft kəmərinin Azərbaycan hissəsi bərpa və inşa edilmişdir və ilk dəfə 25 oktyabr 1997-ci ildə Azərbaycan nefti Novorossiysk limanına (Rusiya Federasiyasına) nəql olunmuşdur. Kəmər istifadəyə verilən gündən 2007-ci ilin sonunadək bu marşrutla 11 milyon 34 min ton neft nəql edilib. Qərb istiqamətində uzunluğu 837 km, diametri 530 mm Bakı-Supsa boru kəməri inşa edilərək, 17 aprel 1999-cu ildə işə salınmışdır. İstifadəyə verilən gündən 2007-ci ilin sonunadək Bakı-Supsa kəməri ilə 45 milyon 542 min ton neft nəql edilib. 1997-ci ildə Azərbaycanda neft hasilatı 9 milyon ton idisə, 2007-ci ildə bu rəqəm 40 milyon tonu keçmişdir. Xəzərin böyük dərinliklərində yerləşən sahələrdə dərin kəşfiyyat quyularının qazılması məqsədilə "Dədə Qorqud" (keçmiş "Kaspmorneft") yarımdalma üzən qazma qurğusu təmir və modernizə edilmişdir və 50–475 m dəniz dərinliyində 7620 m dərinliyinə qədər quyu qazmaq imkanına malikdir. Digər qurğu "İstiqlal" (keçmiş "Şelf-5") yarımdalma üzən qazma qurğusu təmir və modernizə edilərək, 50–700 m dəniz dərinliyində 7620 m dərinliyə qədər quyu qazmaq mümkün olmuşdur. Modernizə olunmuş qazma qurğularının köməyi ilə "Azəri-Çıraq-Günəşli" yataqlarında birgə aparılan işlər nəticəsində 6 kəşfiyyat quyusu qazıldı, bunların səhəsində sonradan neft ehtiyatları 30%-dən çox artırıldı. Bu qurğular 1996-cı ildə yaradılmış "Kaspian Drillinq Kompani" müştərək müəssisənin tərkibində "Şahdəniz" və "Azəri-Çıraq-Günəşli" yataqlarında öz işlərini uğurla davam etdirirlər. Xarici şirkətlər tərəfindən Azərbaycan üçün tikilmiş, Heydər Əliyev adına "Lider" qurğusunun köməyi ilə də texnika-texnoloqiya sahəsində böyük irəliləyişlər əldə edilmişdir. 1999-cu ilin noyabrında Türkiyənin İstanbul şəhərində keçirilmiş ATƏT-in Sammitində ABŞ, Türkiyə, Azərbaycan, Gürcüstan, Qazaxıstan və Türkmənistan prezidentləri tərəfindən Bakı-Tbilisi-Ceyhan (BTC) "Əsas İxrac Neft Kəməri"nin çəkilişi haqqında dövlətlərarası Müqavilə imzalanmışdır. 2002-ci il sentyabrın 18-də Bakıda, Səngəçal terminalında sabiq prezident Heydər Əliyevin, Türkiyə və Gürcüstan prezidentlərinin iştirakı ilə Bakı-Tbilisi-Ceyhan ixrac neft kəmərinin təməl daşı qoyulmuş və tikintisinə başlanmışdır. BTC-nin Azərbaycan hissəsinin Gürcüstan hissəsi ilə birləşdirilməsi 2004-cü ilin oktyabrında baş tutdu. 2006-cı il iyulun 13-də isə Türkiyənin Ceyhan şəhərində XXI əsrin ən böyük enerji layihəsi olan Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin təntənəli açılış mərasimi keçirildi. BTC istismara verilən gündən 2007-ci ilin sonunadək Ceyhan limanından 36 milyon 796 min 555 ton Azərbaycan nefti dünya bazarlarına yola salınmışdır. Azərbaycanın zəngin enerji resursları həm ölkəmizin iqtisadi potensialını gücləndirir, həm də regional əməkdaşlıqda çox mühüm rol oynayır. Tikilib istifadəyə verilmiş neft kəmərləri Azərbaycan neftini dünya və Avropa bazarlarına çıxarır. Respublikamız qlobal miqyasda artıq qaz ixrac edən ölkəyə çevrilib.. Regional əməkdaşlıq müstəvisində həm nəqliyyat, həm də enerji sektorundakı təşəbbüslərin artırılması daha da böyük uğurlara gətirib çıxaracaqdır. Azərbaycanın Avropanın enerji təhlükəsizliyindəki rolu təbii qaz ixracının həcmini artırmaqla yekunlaşmır. Ölkəmiz olduqca zəngin alternativ enerji potensialına malikdir. Azərbaycan günəşli ölkədir və paytaxt Bakı küləklər şəhəri kimi tanınır. Bu amillər Azərbaycanın enerji ixracını genişləndirmək imkanlarını daha da artırır. Ölkəmizin dünya maliyyə böhranı şəraitində belə davamlı inkişafı qarşıya qoyulan bütün layihələrin uğurla gerçəkləşdiriləcəyinə əminlik yaradır. Bunu ötən ildə əldə olunan makroiqtisadi göstəricilər bir daha təsdiq edir. Ölkəmizdə bütün dünyanı iflic vəziyyətinə salmış qlobal böhrana qarşı effektiv tədbirlərin həyata keçirilməsi iqtisadi sahədə davamlı inkişafı təmin etmişdir. Ötən ildə fəal antiböhran tədbirlərinin həyata keçirilməsi, maliyyə intizamının gücləndirilməsi, bazarın sabitləşməsi üçün bir sıra səmərəli tədbirlərin reallaşdırılması, habelə sahibkarlığın inkişafına diqqətin yüksəldilməsi bugünkü uğurlarımıza gətirib çıxarmışdır. Onu da qeyd etmək lazımdır ki, Azərbaycanın Avropaya təbii qaz, elektrik enerjisi və digər resursları ixrac etməsi təkcə iqtisadi məsələ deyil. Nəzərə almaq lazımdır ki, Avropa yuxarıda göstərilən beynəlxalq əhəmiyyətli layihələri reallaşdırmaq üçün Azərbaycana iri həcmdə investisiya da yatıracaq. Bu isə dövlətimizin iqtisadi inkişafına böyük təkan verməklə yanaşı, həm də siyasi dividend qazandıracaq. Azərbaycanın Avropanın enerji təhlükəsizliyindəki rolu getdikcə artmaqdadır. Ölkəmiz təkcə ənənəvi enerji ilə deyil, yaşıl enerji sahəsində də zəngin potensiala malikdir. Fevralın 3-də Bakıda Azərbaycan Prezidenti cənab İlham Əliyevin iştirakı ilə keçirilən Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 9-cu iclası və ilk dəfə Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 1-ci iclası bu baxımdan mühüm əhəmiyyət kəsb edir. Tədbirdə Avropa Komissiyasının enerji məsələləri üzrə komissarı Kadri Simsonun, Türkiyə, İtaliya, ABŞ, Böyük Britaniya, Gürcüstan, Macarıstan, Rumıniya, Bolqarıstan,

Yunanıstan, Albaniya, Moldova, Monteneqro, Serbiya, Ukrayna və Xorvatiyanın yüksək səviyyəli nümayəndələri iştirak ediblər. İclaslarda enerji şirkətlərindən SOCAR, BP, BOTAŞ, TANAP, TAP, TPAO, TAQA, Bulgargaz EAD, Bulgartransgaz, İCGB, Fluxys, ROMGAZ SA, SACE, Desfa, TotalEnergies, FGSZ Ltd, SNAM, Uniper, Petronas, ACWA Power, Masdar, Fortescue Future Industries, WindEurope, SolarPower Europe, maliyyə təsisatlarından isə Dünya Bankı, Beynəlxalq Maliyyə Korporasiyası, Avropa Yenidənqurma və İnkişaf Bankı, Avropa İnvestisiya Bankı, Asiya İnfrastruktur və İnvestisiya Bankı, Asiya İnkişaf Bankı və digər qurumlar da təmsil olunub. Toplantı açılış sessiyasından sonra "Cənub Qaz Dəhlizi və Yaşıl enerji üzrə nazirlər sessiyası", "Cənub Qaz Dəhlizi: Əlverişli, sabit və təhlükəsiz təbii qaz təchizatının genişləndirilməsi" və "Yaşıl enerji: Xəzər dənizinin külək enerjisinin Avropa enerji bazarlarına çatdırılması" mövzularında plenar sessiyalarla davam edib. Artıq doqquzuncu dəfə təşkil olunan Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin iclasının keçirilməsi, eləcə də bu il daha iki mühüm tədbirin Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 1-ci iclasının və yaşıl enerjinin ötürülməsinə dair dördtərəfli Sazişin icrası üzrə Rəhbər Komitənin ilk iclasının da bu il baş tutması Azərbaycanın Avropanın enerji təminatında artan rolunu açıq şəkildə göstərir. İqtisadi inkişafını durmadan şaxələndirərək genişləndirən Azərbaycan bununla da Avropanın enerji təhlükəsizliyini təkcə neft-qaz potensialı ilə deyil, alternativ enerji mənbələri hesabına da təmin etməsində əhəmiyyətli addım atıb. Bu mənada Prezident cənab İlham Əliyevin həyata keçirdiyi yeni enerji siyasətinin iki əsas komponentini qeyd etmək olar. Birincisi, Azərbaycanın Avropaya qaz ixracını artırmasıdır ki, bu, ötən il iyulun 18-də Avropa İttifaqı ilə Azərbaycan arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumuna əsaslanır. Artıq həmin sənədin icrasına başlanılıb. 2021-ci ildə Azərbaycanın Avropa İttifaqı bazarına təbii qaz ixracı 8,2 milyard kubmetr, 2022-ci ildə isə bu rəqəm 11,3 milyard kubmetr təşkil edib. Cari ildə onun həcmi ən azı 11,6 milyard kubmetr olacaq. 2023-cü ildə təbii qazın ümumi həcmi təxminən 24 milyard kubmetr olacaq. Müqayisə üçün 2021-ci ildə bu rəqəm 19 milyard kubmetr təşkil edirdi. Azərbaycan özünün qaz təchizatının coğrafiyasını Avropa bazarına qədər genişləndirir. Bu, hamı üçün uğurlu vəziyyətdir. Çünki Avropaya öz enerji təhlükəsizliyinin qorunması üçün qaz lazımdır, Azərbaycanın isə özünün nəhəng enerji resursları üçün etibarlı bazara ehtiyacı var. Enerji siyasətinin digər mühüm komponenti Avropaya yaşıl enerji ixracı ilə bağlıdır. Azərbaycan Avropanın mühüm elektrik enerjisi, əsasən, yaşıl enerji təchizatçısına çevrilməyi planlaşdırır. Azərbaycanın nəhəng bərpaolunan enerji potensialı ölkəmizin bu sahədə də həlledici rol oynamasına imkan verir. Fevralın 3-də Bakıda Azərbaycan Prezidenti cənab İlham Əliyevin iştirakı ilə keçirilən Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 9-cu iclası və ilk dəfə Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 1-ci iclası bu baxımdan mühüm əhəmiyyət kəsb edir. Cənub Qaz Dəhlizi regional və qlobal əhəmiyyət daşıyan mühüm infrastruktur layihəsidir. Azərbaycanın şaxələndirilmiş neft-qaz boru kəmərləri şəbəkəsinin qurulmasına nail olması strateji əhəmiyyət daşıyır. Məhz şaxələndirilmiş infrastruktur qurması sayəsində Azərbaycan istehsalçı ölkə kimi müstəqil enerji siyasəti həyata keçirməyə və milli maraqlarını maksimum dərəcədə qorumağa nail olur. Şaxələndirilmiş enerji marşrutları, eyni zamanda, istehlakçılar üçün böyük əhəmiyyət daşıyır. Şaxələndirilmiş boru kəməri şəbəkəsi respublikamıza özünün enerji resurslarını müxtəlif istiqamətlərə nəql etməyə imkan verir, paralel surətdə istehlakçılar da tələbatlarını müxtəlif mənbələrdən ödəyirlər. Azərbaycanın ardıcıllıqla davam etdirdiyi neft-qaz siyasətində prinsipial mövqeyi belədir ki, enerji amili heç bir halda digər ölkələrə qarşı təzyiq vasitəsinə çevrilməməlidir. Cənub Qaz Dəhlizi layihəsinin reallaşmasına sanballı töhfələr verməklə Azərbaycan özünün bəyan etdiyi ədalətli enerji siyasətinə sadiqliyini bir daha ortaya qoyur. Xəzərin Azərbaycan sahillərindən başlayaraq qonşu Gürcüstan və Türkiyədən keçməklə Avropanın mərkəzi hissəsinədək uzanacaq yeni nəql marşrutunun - Cənub Qaz Dəhlizinin yaradılması istiqamətində böyük iş həcmi yerinə yetirilib. 2019-cu il 30 noyabr tarixində Türkiyənin Ədirnə vilayətinin İpsala qəsəbəsində Cənub Qaz Dəhlizinin çox mühüm seqmenti olan TANAP qaz kəmərinin Avropa ilə birləşən hissəsinin açılış mərasimi keçirilib. Azərbaycan qazı Avropa ölkələrinə TANAP-dan keçməklə Trans-Adriatik təbii qaz boru kəməri - TAP vasitəsilə çatdırılacaq. Prezident İlham Əliyev fevralın 14-də Münxen Təhlükəsizlik Konfransı çərçivəsində "Enerji təhlükəsizliyi" mövzusunda keçirilən dəyirmi masadakı çıxışında 2019-cu ildə Cənub Qaz Dəhlizinin əsas seqmentlərindən biri olan TANAP-ın istifadəyə verilməsini əlamətdar hadisə kimi dəyərləndirərək vurğulayıb: "Ötən il ölkəmiz və düşünürəm ki, Avropanın enerji təhlükəsizliyi üçün əlamətdar olub. Çünki biz tərəfdaşlarımızla birlikdə artıq Türkiyə-Yunanıstan sərhədinə çatan, əsas qaz kəməri olan TANAP-ı

uğurla başa çatdırdıq. Bu, o deməkdir ki, Cənub Qaz Dəhlizinin dörd seqmentindən üçü artıq uğurla tamamlanıb. Sonuncu seqmentə gəlincə, TAP layihəsi bu ilin sonunda tamamlanacaq. Beləliklə, 3,5 min kilometr uzunluğunda inteqrasiya olunmuş kəmər sistemi artıq istismara veriləcək. Bu, regionumuzda əsas infrastruktur layihələrindən biridir. Bu, əlbəttə ki, bizim üçün, tərəfdaşlarımız üçün, Avropanın enerji təhlükəsizliyi üçün çox vacibdir". Yuxarıda bəhs olunan dəyirmi masada da vurğulandığı kimi, bu gün Cənub Qaz Dəhlizi yeddi ölkəni - Azərbaycan, Türkiyə, Gürcüstan, Bolqarıstan, Yunanıstan, Albaniya və İtaliyanı birləşdirir. Üç Balkan ölkəsi - Monteneqro, Xorvatiya, eləcə də Bosniya və Herseqovina da ikinci fazada layihəyə qoşulmaqla bağlı artıq Anlaşma Memorandumu imzalayıb. Həm texniki, həm də qaz ehtiyatları baxımından bu mümkündür. Beləliklə, Azərbaycanla Cənub Qaz Dəhlizi üzərində işləyən ayrı-ayrı ölkələr öz tarixlərində ilk dəfə alternativ təchizat mənbələrinə malik olmaq imkanı qazanacaqlar. Vacib məqam həm də ondan ibarətdir ki, burada söhbət yalnız marşrutun deyil, həm də mənbənin şaxələndirilməsindən gedir. Bunu xüsusi olaraq nəzərə çatdıran Prezident İlham Əliyev "Bizim timsalımızda Azərbaycan qazının Avropa bazarına, Türkiyə bazarına nəqli yeni mənbə və yeni marşrutdur. Düşünürəm ki, bu, bizim layihəmizin üstünlüyüdür və buna görə də Avropa İttifaqı ona güclü dəstək verir". Azərbaycanın Avropanın enerji təhlükəsizliyindəki rolu getdikcə artmaqdadır. Ölkəmiz təkcə ənənəvi enerji ilə deyil, yaşıl enerji sahəsində də zəngin potensiala malikdir. Bu göstəricilərdə Azərbaycanın sabit neft təchizatçısı ölkəsi olaraq qaldığını bir daha sübut edir.

**NƏTICƏ**

Azərbaycanin xarici siyasətində enerji amili öz əhəmiyyətli mövqeyini qorumaqda davam edir. Müxtəlif liderlərin hakimiyyətləri dövründə azərbaycanin ümumi xarici siyasət strategiyasinda ciddi dəyişikliklər nəzərə çarpsa da, azərbaycanin enerji siyasəti 25 il boyunca əsasən bənzər hədəflərə yönəlmişdir. Azərbaycan bu siyasətlər nəticəsində hazirda öz enerji təhlükəsizliyini təmin edə bilir, eləcə də bəzi digər dövlətlərin enerji təhlükəsizliyində də əsas rollardan birini oynayir. Bunun ən böyük göstərcisi Bakı-Tbilisi-Ceyhan boru kəmərinin tikilməsdir ki, bu da ölkəmizin ən uğurlu naliyyətindən biri olmasını xəbər verir. O, tarixdə ilk dəfə olaraq Xəzər və Aralıq dənizlərini birləşdirdi. Biz, həmçinin Xəzərin şərq sahilindən Avropa və beynəlxalq bazarlara neft təchizatçıları üçün çıxışın təmin edilməsində tranzit ölkə kimi öz rolumuzu oynayırıq. Biz təchizatda olduğu kimi, tranzitdə də etibarlı ölkəyik. Ən əsası da Azərbaycan Avropa üçün etibarlı tərəfdaşdır. Enerji təhlükəsizliyi məsələsinə yanaşmamız ondan ibarətdir ki, enerji resursları ölkələri və xalqları ayırmalı deyil, birləşdirməlidir. Məhz bizim yanaşmamız enerji resursları rəqabət və ya toqquşmaya deyil, regional və beynəlxalq əməkdaşlığa xidmət etməli, həmçinin təchizatçıların, tranzit ölkələrin və istehlakçıların maraqları üst-üstə düşməsi fikrinin tərfədarı olmağımız daha çox proqnozlaşdırmaya və qarşılıqlı faydaya yollar açmasınna səbəb olmuş və nəticələri gözlər önünə sərmişdir. Bu, ölkəmizin enerji fəlsəfəsini bir daha açıqlamış olur.

**ƏDƏBIYYAT SIYAHISI**

1. http://dashkesen-ih.gov.az/az/news/645.html
2. https://www.unectf.org/az%C9%99rbaycan-avropanin-enerji-t%C9%99hluk%C9%99sizliyinin-t%C9%99min-edilm%C9%99sind%C9%99-rolu-v%C9%99-istiraki/
3. https://az.wikipedia.org/wiki/%C6%8Fsrin_m%C3%BCqavil%C9%99si
4. https://modern.az/aktual/393989/azerbaycanin-avropanin-enerji-tehlukesizliyinin-teminatinda-ehemiyyetli-rolu/
5. https://www.yeniazerbaycan.com/Siyaset_e52264_az.html
6. Prezident H.Əliyev neft sazişini təstiq etdi// "Azərbaycan" qəzeti 3 dekabr 1994.
7. Yusifzadə X. Azərbaycan neft və qaz sənayesi tarixi, ARDNŞ-in perspektivi, Bakı, 2000.
8. Nəsirov E. Azərbaycan nefti və beynəlxalq müqavilələr (1991-1999), Bakı,1999,104 s.

# DÜNYA IQTISADIYYATINDA QLOBALLAŞMA PROSESLƏRINDƏ AZƏRBAYCANIN IŞTIRAKI

**RÜBABƏ MIKAYILOVA**
Bakı Slavyan Universiteti
Beynəlxalq münasibətlər və Diplomatiya
mikayilova.rubaba@mail.ru
BAKI, AZƏRBAYCAN

**XÜLASƏ**

Müasir dünyanın son dövrdə üzləşdiyi reallıqlardan biri qloballaşma prosesidir. Qloballaşma XX və XXI əsrlərin hüdudlarında beynəlxalq beynəlxalq münasibətlərin inkişafının başlanğıc götürməklə hazırda yeni, daha çox hiss olunan, daha çox narahatlıq doğuran mərhələsinə qədəm qoymuşdur. Bu obyektiv bir prosesdir və onun qarşısını almaq mümkün deyildir. Onu yalnız nəzərə almaqla, ona uyğunlaşmaq olar. Bunun üçün isə hər bir dövlət qloballaşmanın bütün mahiyyətini dərindən aydınlaşdırmalı, onun özü üçün mənfi və müsbət perspektivlərini müəyyənləşdirərək özünün fəaliyyət strategiyasını müəyyənləşdirməli və keçirilməlidir. Obyektiv xarakter daşıyan qloballaşmanı birmənalı şəkildə mənfi və ya müsbət proses olduğu düşünmək düzgün deyildir. Həmin kriteriyaları yalnız hər bir konkret dövlət öz maraqları nöqteyi nəzərindən tətpiq edilə bilər. Qloballaşmanın nüfuz etdiyi ölkələrdən biri olan Azərbaycanın qarşısında da məhz həmin vəzifə dayanırdı.

AÇAR SÖZLƏR : QLOBALLAŞMA, INTEQRASIYA, TRANSMILLI KORPERASIYALAR

**KEYWORDS: Globalization, integration, transnational corporations**

## GİRİŞ

Qloballaşma şəraitində dünya iqtisadiyyatı və müasir ədəbiyyatlarda geniş yer tutan dünya iqtisadiyyatının transmilliləşməsi prosesinin mühüm aspektlərinin təhlili aparılmışdır. Burada, xüsusilə, transmilliləşmə prosesinin emprik və nəzəri əsasları, ona təsir edən amillər, transmilliləşmənin dünya iqtisadiyyatında rolu kimi mövzular əsas tədqiqat obyektinə çevrilmişdir. Müasir dövrdə, xüsusilə, əksər milli iqtisadiyyatların açıq olduğu bir şəraitdə bu mövzu kifayət qədər aktuallıq kəsb edir. Bir tərəfdən korporasiyaların mənfəəti artırmaq və risklərin diversifikasiyası məqsədilə beynəlxalq bazarlara çıxma cəhdləri, digər tərəfdən ayrı-ayrı ölkələrin milli iqtisadi inkişafa nail olmaq və birbaşa xarici investisiyalar cəlb etmək məqsədilə transmilli şirkətlərə duyduqları ehtiyac transmilliləşmə prosesinin əsasını təşkil edir. Buna baxmayaraq, iqtisadi nəzəriyyə transmilliləşmə prosesinin heç də həmişə tərəflər (transmilli korporasiyalar (TMK) və parnyor ölkə) üçün müsbət təsiri olmadığını deyir.

Belə ki, TMK-lar aşağıdakı kimi xarakterizə oluna bilər:

• Mərkəzləşməmiş idarəetmə - milli və regional bölmələr holdinq şirkətdən müstəqildir və avtonom xarakter daşıyır;

• Çoxsaylı istehsal xətləri mövcuddur;

• Qarşılıqlı əlaqəli funsiyalara malikdirlər.

Qloballaşma şəraitində dünya iqtisadiyyatının transmilliləşmə prosesinin kəmiyyət təhlili də aparılmışdır. Belə ki, bu emprik tədqiqat birbaşa xarici investisiyalar və digər iqtisadi göstəricilər əsasında ölkələrin və TMK-ların təhlilinə istiqamətlənir. Bu konteksdə iki əsas məqsədə qarşıya qoyulur. Bunlardan birincisi, birbaşa xarici investisiyaların qoyulmasına dair qərar qəbul edərkən şirkətlərin nəzərə aldığı əsas amillərin üzə çıxarılmasıdır. Bu amillər işçi qüvvəsi xərcləri, iqtisadi və siyasi sabitlik kimi amillər ola bilər. İkincisi, "şirkətlər niyə transmilliləşirlər?" sualına cavab axtarmaqdır. Güman edilə bilər ki, bu ilk növbədə gəlirin artırılması və risklərin diversifikasiyası ilə bağlıdır.

Tədqiqatın sadalanan məqsədlərinə nail olmaq üçün aşağıdakı vəzifələr qarşıya qoyulmuşdur:

• Birincisi, ölkələrin çoxmilliləşmə indeksinin müəyyənləşdirilməsində birbaşa xarici investisiyalar nəzərə alınmalı olub olmadığını üzə çıxarmalıdır.

• İkincisi, çoxmilliləşmə prosesinin faktorları müəyyənləşdirilməli və

reqressiya təhlili əsasında yoxlanılmalıdır.

• Üçüncüsü, TMK-ların real nümunələr üzərində müqayisəsinin aparılmasıdır.

• Sonuncusu, reqressiya təhlilindən istifadə edilməsinin qiymətləndirilməsi məqsədilə lazımi informasiya resurslarının olub olmaması məsələsini aydınlaşdırmaqdır.

Beləliklə, Azərbaycan da bu proseslərdən kənar qalmadı. Ölkəmiz öz növbəsində milli maraqların qorunub saxlanması məqsədilə uzunmüddətli strateji inkişaf proqramlarının hazırlanmasında, həmçinin iqdisadiyyat sahəsində gələcək perspektivliyin təmin edilməsində, o cümlədən təhlükəsizliyi təmin etmək üçün region dövətlərinin kollektiv fəaliyyət konsepsiyasının hazırlanmasında yaxından iştirak etmişdir.

**TƏDQIQAT METODU**

Analiz, elmi prinsip, kultroloji və müqayisə metodu.

Qloballaşma, ölkələr arasındakı iqtisadi, ictimai və siyasi əlaqələrin inkişafı, fərqli cəmiyyət və mədəniyyətlərin inanc və tələblərinin daha yaxşı tanınması, beynəlxalq əlaqələrinin sıxlaşması kimi bir-biri ilə əlaqəli mövzuları özündə ehtiva edən bir anlayışdır. Bir çox tədqiqatçılara görə, ilkin mənada qloballaşma, 1960-cı illərdə ortaya çıxan çevrilmə və sürətli dəyişmələrə söykənən, siyasi nəticələri özü ilə gətirən iqtisadi bir müddətdir. Məlumdur ki, müasir bazar iqtisadiyyatının əsas xüsusiyyətlərindən biri onun vaxtaşırı, orta hesabla hər 10-15 ildən bir obyektiv və subyektiv səbəblərdən irəli gələrək iqtisadi böhranla üzləşməsidir. İqtisadi böhranlar qlobal, regional və ölkə səviyyəsində baş verə bilər. Bu böhranların hər biri milli iqtisadiyyat üçün, onun bütün subyektləri üçün, əhali üçün müəyyən çətinliklər yaradır, iqtisadi tənəzzülə səbəb olur. Başlanğıcını ABŞ-ın maliyyə sistemindən götürən qlobal iqtisadi böhran tədricən dünya ölkələrini bürümüşdür. Bu böhranın qlobal xarakter daşıması müasir dünyamızın qloballaşması ilə bağlıdır. Son 15-20 il ərzində insan fəaliyyətinin müxtəlif sahələrində olduğu kimi, iqtisadiyyatda da baş verən qloballaşma prosesləri onun məzmununu və xarakterini dəyişdirmişdir. Müasir iqtisadi qloballaşmanı həm dünya ölkələrinin iqtisadi inteqrasiyasının güclənməsi kimi, həm inkişaf etməkdə olan və kasıb ölkələrin inkişaf etmiş ölkələr tərəfindən iqtisadi ekspansiyası kimi, həm də dünya ölkələrinin qarşılıqlı iqtisadi asılılığının güclənməsi kimi izah etmək olar. XX əsrin sonuncu onilliyi inteqrasiya proseslərinin sürətlənməsi və dərinləşməsi ilə diqqəti cəlb edir. Bu dövrdə bir çox regional inteqrasiya qurumları yaranmışdır (APEK, MERKOSUR, NAFTA, MDB və s.). Bu beynəlxalq inteqrasiya qurumlarının çoxu siyasi motivlərlə yaradılsa da, bu qurumların fəaliyyətində çoxlu sayda iqtisadi fəaliyyət vardır. Müasir dövrdə ölkələr arasında inteqrasiya prosesləri əsasən transmilli şirkətlər və beynəlxalq maliyyə-kredit təsisatlarının iştirakı ilə daha geniş vüsət almışdır. 60-cı illərin axırları, 70-ci illərin əvvəllərində transmilli korporasiyaların fəaliyyəti xeyli genişlənmişdir. Onlar fəal surətdə xarici ölkələrin milli bazarlarında istehsal, satış, diler və maliyyə şəbəkələri yaratmağa başlamışlar. Nəticədə, onlar xarici və dünya ticarətinə, investisiya proseslərinə, kapital bazarlarına, valyuta əməliyyatlarına, işçi qüvvəsinin miqrasiyasına, ən yeni texnologiyaların satışına təsir göstərməklə beynəlxalq iqtisadi münasibətlərin inkişafını və formalaşmasını xeyli sürətləndirmişlər. [4, s.251] Kreditlər və istiqrazlara görə borcların sürətli artımı ilə əlaqədar BVF və BYİB bir çox ölkələrin borclarının yenidən strukturlaşması üzrə tədbirlər həyata keçirir. 1997-1998-ci illərdə dünya maliyyə böhranı zamanı bu təşkilatlar xilasedici rol oynamışlar. Beləliklə, beynəlxalq maliyyə-kredit təsisatları müasir beynəlxalq iqtisadi münasibətlərin valyuta-maliyyə sahəsinin formalaşdırılmasında fəal iştirak edirlər. [2, s.79] Ən böyük inteqrasiya təşkilatlarından biri Beynəlxalq Yenidənqurma və İnkişaf Bankıdır (BYİB). Beynəlxalq kapital bazarında onu Dünya Bankı da adlandırırlar. Rəsmiyyətinin ilk illərində depozitləri qəbul etmək üçün və şəriətə uyğun üsullar vasitəsilə maliyyə resurslarını səfərbər etmək üçün səlahiyyət verilir. İİB üzv ölkələr arasında xüsusilə istehsal vasitələri üzrə xarici ticarətin həvəsləndirilməsinə yardım edir. [1, s.400] İqtisadiyyatın qloballaşdığı müasir dövrdə meydana gəlmiş və inkişaf etmiş bir çox inteqrasiya birlikləri qarşılarına prinsipcə bir-birinə oxşar vəzifələr qoyurlar. Həmin vəzifələrə uyğun olaraq inteqrasiyanın məqsədləri meydana çıxır və formalaşır. Qeyd etmək zəruridir ki, inteqrasiya inkişaf etdikcə meydana gələn dinamik effektlər sırasında ən əsas yeri müxtəlif ölkələrin istehsalçıları arasında artan rəqabət tutur. Bu rəqabət əmtəələrin keyfiyyətinin yaxşılaşmasına gətirib çıxarır, qiymətlərin artım tempinin qarşısını alır, yeni texnika və texnologiyaların tətbiqini stimullaşdırır və s. Bu proseslər həmçinin inkişaf etməkdə olan ölkələrin, xüsusilə Afrika ölkələrinin inkişafına neqativ təsir göstərmişdir, həmin ölkələr hələ də dünya

təsərrüfatı üçün xammal ölkələri kimi qalmaqdadırlar. Qeyd edək ki, nəticələrə əsaslanaraq ölkəmizdə beynəlxalq iqtisadi inteqrasiya istiqamətlərinin tətbiqinin vacibliyinin səmərəli olduğu qənaətinə də gəlinmişdir. Ölkəmiz bu istiqamətdə bir çox uğurlu fəaliyyətlərə imzasını atdı. Xüsusilə dövlət müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan Respublikası qlobal iqtisadiyyata inteqrasiya etməyə başladı. Xarici iqtisadi siyasətinin əsas istiqamətlərindən birini beynəlxalq maliyyə-kredit və iqtisadi qurumlarla əlaqələr təşkil etdi. Beləliklə Beynəlxalq Valyuta Fonduna, Dünya Bankına, Avropa Yenidənqurma və İnkişaf Bankına, İslam İnkişaf Bankına və Asiya İnkişaf Bankına üzv qəbul olunub. Regional və beynəlxalq təşkilatlarla əməkdaşlığı genişləndirdi. İslam Əməkdaşlıq Təşkilatı, Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, Müstəqil Dövlətlər Birliyi, Avropa İttifaqının "Şərq Tərəfdaşlığı" proqramının üzvüdür. Həmçinin Çinin təşəbbüsü ilə Asiyanı Avropaya birləşdirən "Bir Kəmər, bir yol" Yeni İpək Yolu layihəsi həyata keçirilir ki, ölkəmiz də bu layihədə iştirak etdi. Bu layihənin dünyanın ən böyük regional işbirliyi platforması olma potensialına sahib olduğu düşünülür. Layihədə iştirak edən ölkələrə baxıldıqda, layihə dünya əhalisinin 65 faizlik hissəsini, qlobal ÜDM-nin üçdə birini, dünya ticarət həcminin dörddə birini təşkil edir və layihəyə daxil olan ölkələrin maddi varlığının 21 trilyon dolların üzərində olduğu hesablanmışdır. Çindən başlayaraq Asiyadan Avropaya qədər uzanacaq "Bir kəmər-bir yol" layihəsindəki ən önəmli ölkələrdən biri də Azərbaycandır. Tarixi İpək Yolunun üzərində yerləşməsi, əlverişli coğrafi mövqeyi Azərbaycanın əsas nəqliyyat dəhlizlərindən biri olmasına şərait yaradıb. Bu səbəbdəndir ki, Çinin "Bir kəmər, bir yol" təşəbbüsünü ilk dəstəkləyən ölkələrdən biri də məhz Azərbaycan olmuşdur. Bakı-Tbilisi-Qars dəmiryolunun da "Bir kəmər, bir yol" layihəsinin bir parçası olmaq özəlliyi ölkəmizin nüfuzunu və önəmini daha da artırır. Bu layihə ilə Azərbaycan məhsullarının şərqə və qərbə ixracı iqtisadi-ticari əməkdaşlığın inkişafının yeni müstəviyə keçməsinə müsbət təsir edəcək. Modelskiyə görə, qloballaşmanın iqtisadi, mədəni, politik kateqoriyaları var.[1,s.75-80] İqtisadi qloballaşma ölkə iqtisadiyyatlarını bir-birindən ayıran gömrük divarları, tariflər, kvotalar, sərmaye məhdudiyyətləri kimi əngəllərin getdikcə azaldılması ilə malların, xidmətlərin və sərmayenin ölkələr arasında daha sürətli və daha asan dövredərək dünyanın iqtisadi olaraq bütünləşməsini ifadə edir. İqtisadi qloballaşma əsas olaraq 3 mərhələdə gerçəkləşir. Bu mərhələlərdən birincisi ticari sərbəstlik, ikincisi investisiya sərbəstliyi, üçüncüsü isə maliyyə sərbəstliyidir. Bu konteksdə iqtisadi qloballaşma 3 yerə ayrılır;[2, s. 156-157]

1. Ticarətin qloballaşması

İqtisadi qloballaşma deyilincə ilk ağla gələn beynəlxalq ticarətdəki böyümə və inkişafdır. Ticarətin qloballaşmasını ölçməkdə istifadə edilən ən populyar üsullardan biri idxalat və ixracatın ümumi cəminin ÜDM-yə bölünməsidir.

1. İnvestisiyaların qloballaşması

İnvestisiyaların qloballaşması ilə nəzərdə tutulan əslində Birbaşa Xarici İnvestisiya(Foreign direct investment) olub digər bir yönüylə istehsalın qloballaşmasıdır. Azərbaycan iqtisadiyyatına BXİ-nin daxil olması 1994-cü ildə ölkənin ilk beynəlxalq neft sazişi olan "Azəri-Çıraq-Günəşli" layihəsi üzrə "Əsrin Müqaviləsi"nin imzalanması ilə 1995-ci ildən başladı. Əsasən neft-qaz sektorunda BXİ-lərin həcmi daha çoxdur. Statistika Komitəsinin məlumatına əsasən 1995-2017-ci illəri ərzində ümumilikdə ölkə iqtisadiyyatına 125,5 milyard dollar xarici investsiya daxil olub ki, bunun 120,6 milyard dolları 2000-2017-ci illərdə daxil olub. Həmin dövrdə 120,6 milyard dollarlıq investisiyanın 77,8 milyardı BXİ-lər olub. 2000-2017-ci illər üzrə Azərbaycan iqtisadiyyatına daxil olan 77,8 milyard dolların 66,8 milyard dolları(85,9%) neft-qaz sektoruna, 19,9 milyard dolları isə qeyri neft-qaz sektoruna qoyulub. Qeyri-neft sektorunun, xüsusilə də emal sənayesinin daha da inkişaf etdirilməsi, ÜDM-dəki payının artırılması, BXİ-lərin bu sektora cəlb edilməsi dövlətin əsas hədəflərindən biridir. Bu məqsədlə Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2016-cı il tarixli fərmanı ilə "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi" təsdiq edilmişdir. Strateji Yol Xəritəsində ölkənin 2025-ci ilə qədər hədəf indikatorlarından biri qeyri-neft sektoruna yönəldilmiş BXİ-nin qeyri-neft ÜDM-dəki payının 4 faizə çatdırılmasıdır. Hədəflərə çatmaq üçün yaradılan iqtisadi zonalardan biri olan Ələt Azad İqtisadi Zonasının təməli qoyulmuşdur. Təməlqoyma mərasimində iştirak edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev demişdir: "Bilirik ki, potensial investorlar, ilk növbədə, Dünya Bankının "Doing Business" hesabatına baxırlar, eyni zamanda, Davos Ümumdünya İqtisadi Forumunun reytinq cədvəlinə baxırlar. Hər iki yerdə bizim üstünlüyümüz göz qabağındadır. İnfrastruktur layihələrinin səviyyəsinə görə, baxın, Azərbaycan hansı yerlərə layiq görülüb. Elektrik təchizatı sahəsində Azərbaycan Davos Forumunun hesabatında dünya

miqyasında ikinci yerdədir. Təsəvvür edin, dünya miqyasında ikinci yerdə. Dəmir yolu xidmətlərinin səmərəliliyinə görə 11-ci yerdə. Hava nəqliyyatının səmərəliliyinə görə 12-ci yerdə. Avtomobil yollarının keyfiyyətinə görə 24-27-ci yerləri bölüşür. Xəzər gəmiçiliyi gəmiçilik xidmətlərinə görə 25-ci yerdədir. Bütün bunlar bizim əldə etdiyimiz böyük uğurlardır. Bu uğurlar bu gün ölkəmizin dinamik inkişafını təmin edir. Çünki əsas infrastruktur layihələri artıq ya başa çatıb, ya da başa çatmaq üzrədir. İnvestorlar üçün bunlar çox önəmli şərtlərdir - investisiya iqlimi, infrastruktur layihələri."[9]

2. Maliyyə qloballaşması

Maliyyə bazarlarının inteqrasiyası və kapital hərəkətlərinin liberallaşdırılması kimi bilinən maliyyə qloballaşması həm qloballaşmanın bir elementi, həm də qloballaşmanı sürətləndirən bir faktordur. Maliyyə qloballaşması şəraitində tətbiq olunan maliyyə açıqlığı siyasəti həm valyuta məzənnəsinə, həm də milli pul siyasətinə təsir göstərir. Azərbaycanın pul siyasəti Mərkəzi Bank tərəfindən aparılır. Mərkəzi Bankın yürütdüyü pul siyasəti makroiqtisadi stabilliyin təmin olunmasına və ölkənin əlverişli beynəlxalq rəqabət qabiliyyətinin qorunub saxlanmasına yönəlib. Strateji valyuta ehtiyyatlarının ildən-ilə artması Azərbaycanın maliyyə təhlükəsizliyini və yüksək beynəlxalq ödəmə qabiliyyətini ifadə edir. Əgər 2015-ci ildə strateji valyuta ehtiyatları 37 milyard idisə, 2020-ci ildə 49.93 milyard dollar təşkil edir. Bu isə o deməkdir ki, 2020-ci ilin pandemiya şəraitində dünya iqtisadiyyatında durğunluq və azalmaya baxmayaraq ölkənin iqtisadi sabitliyi qorunub və valyuta ehtiyatları artıb.

**NƏTICƏ**

Belə ki, qloballaşmanın özündə ehtiva etdiyi ideoloji mahiyyət, əsasən, iqtisadi qloballaşmanı ön plana çəkir. İqtisadi qloballaşma milli iqtisadi sistemlərin vahid bir iqtisadi sistem halında birləşməsi, onların qarşılıqlı asılı vəziyyətə gəlməsi və bununla da ölkələr arasındakı bütün iqtisadi münasibətlərin liberallaşmasıdır. Belə bir düşüncə mövcuddur ki, milli dövlətlər arasında hər cür maliyyə, iqtisadi və informasiya sərhədləri götürülməli, azad iqtisadiyyat və ticarət, azad rəqabət, maksimum sərbəstlik üçün münbit şərait yaradılmalıdır. Qloballaşmanın həqiqi mahiyyəti əslində elə bundan ibarətdir. O, iqtisadi inteqrasiya ideyalarının həyata keçirilməsinin yeni və daha da təkmilləşdirilmiş formasını müəyyənləşdirir. Lakin hətta ən inkişaf etmiş dövlətlərin özündə belə qloballaşmadan ehtiyatlananların, bu ideyanın millətlərin özünəməxsus tarixi nailiyyətlərini, milli və mənəvi dəyərlərini məhv edəcəyini düşünənlərin olmasına baxmayaraq, qloballaşmanın əsas üstünlüklərindən biri də məhz elə bundan ibarətdir ki, o dünyəvi inteqrasiyanı hər bir xalqın milli maraqları kontekstində təsəvvür etməyə imkan verir. Ölkəmiz üçün də öz nəticələrini isə bu şəkildə səgiləyir. 1994-cü ildən etibarən qlobal iqtisadiyyata inteqrasiya olan Azərbaycan iqtisadiyyatını daha çox iqtisadi qloballaşma çərçivəsində incələməyimizə əsasən Azərbaycanın iqtisadi qloballaşmanın hər üç növünə inteqrasiyası hədəflənmişdir. Bu konteksdə xarici ticarət, birbaşa xarici investsiya, kapital bazarlarında lazımi işlər görülüb və görülür. 1994-cü ildən neft kontraktlarının imzalanmasıyla sürətlənən xarici ticarət həcmi böyümüşdür. Bu artımda son 5 ilin məlumatlarına baxıldıqda ixracın idxaldan çox olması görülməkdədir. BXİ-lər üzrə qeyri-neft sektoru üzrə hədəflənən hissəyə çatılması, əlverişli investisiya mühitinin yaradılması, eyni zamanda 44 günlük Vətən müharibəsi ilə işğaldan azad edilən Qarabağ və ətraf rayonların iqtisadiyyatının inkişafı üçün böyük potensial var. Bu potensialların reallaşması ilə Ümummilli Lider Heydər Əliyevin dediyi kimi, Azərbaycan dünyaya günəş kimi doğacaq.

**ƏDƏBIYYAT SIYAHISI**

1. Bədəlov Ə.M., Ağayev A.M., Tağızadə S.C. Dünya iqtisadiyyatı. Bakı: Səda, 2006, 623 s.
2. Dünya iqtisadiyyatı: beynəlxalq ticarət, maliyyə və inkişaf / Tərc. İ.A.Kərimli. Bakı: CBS, 2006, 166 s.
3. Kərimov C.Ə. və b. Beynəlxalq iqtisadi təşkilatlar. Dərs vəsaiti. Bakı: Nurlan, 2008, 213 s.
4. Qafaraov Ş.S. Müasir iqtisadi sistem və qloballaşma. Bakı: Elm, 2004. 404 s.
5. Məmmədov M.Q. Beynəlxalq iqtisadi təşkilatlar: Tədris vəsaiti. Bakı: CBC, 2008, 246 s.
6. MODELSKİ, George (2008);"Küreselleşme",içinde Küresel Dönüşümler (Ed.: D.Held ve A. McGrew), Phonix Yayınevi, Ankara
7. 2.O LOUGHLİN, J., L. STAEHELİ And E. GREENBERG (2004): "Economic Globalization, Political Changes And Social Outcomes" İçində Globalization And Its Outcomes, (Ed. J. O'loughin, L. Staeheli And E. Greenberg), The Guilford Press, New York, 2004
8. James Gerber, International Economics, Third Edition, Pearson Education, 2005.
9. P. Krugman and M. Obstfeld, International Economics: Theory and Policy, Seventh Edition Pearson – Addison Weasley.
10. https://unec.edu.az/application/uploads/2015/05/memmedov_samir.pdf
11. http://www.anl.az/down/meqale/az_azerbaycan/2013/aprel/306412.htm

# REGİONLARDA DAYANIQLI İNKİŞAFIN TƏMİN OLUNMASININ MÖVCUD VƏZİYYƏTİ

**İLYAS NAĞIYEV**
Azərbaycan dövlət turizm agentliyi / Azərbaycan turizm və menecment universiteti
Biznes idarəçiliyi , Menecment sahələri üzrə
BAKI, AZƏRBAYCAN

**XÜLASƏ**

Azərbaycan dövlət səviyyəsində dayanıqlı inkişafı təmin etmək üçün ayrı-ayrı regionlar üzrə də DİM-ni uğurla təmin etməkdədir. Belə ki, BMT tərəfindən müəyyən edilmiş 17 DİM-dən əksəriyyəti, xüsusən də yoxsulluğa son, yaxşı səhiyyə və rifah, keyfiyyətli təhsil, gender bərabərliyi, layiqli əmək və iqtisadi artım, bərabərsizliyin azaldılması, sərfəli və təmiz enerji kimi məqsədlərin regionlarda təmin edilməsi son nəticədə Azərbaycanda dayanıqlı iqtisadi inkişafın təmin olunmasında müstəsna rol oynayır.

Ölkədə dayanıqlı və tarazlı inkişafın vacib şərtlərindən biri ölkənin ümumi sosial və iqtisadi inkişafının onun bütün əhalisinə və bütün regionlarına əsasən eyni səviyyədə təsirinin təmin edilməsidir.

Məqalənin əsas məqsədi Azərbaycanın bütün regionlarında dayanıqlı inkişafın təmin olunmasının cari vəziyyətini araşdırmaqdır. Qarşıya qoyulmuş məqsədə çatmaq üçün Azərbaycanda dayanıqlı inkişafın təmin olunması amilləri və regionlarda dayanıqlı inkişafın cari vəziyyəti araşdırılmalıdır.

**AÇAR SÖZLƏR: region, dayanıqlı inkişaf, mövcud vəziyyət, təhsil, səhiyyə.**

**KEY WORDS: region, sustainable development, current situation, education, healthcare.**

## GİRİŞ

Azərbaycan dayanıqlı inkişaf proqramlarının qəbul edilməsi və həyata keçirilməsi ilə bağlı BMT-nin Minilliyin Bəyannaməsinə qoşulmuşdur. Minilliyin Bəyannaməsi özündə yoxsulluğun və aclığın aradan qaldırılmasını, sağlamlıq, təhsil vəziyyətinin yaxşılaşdırılmasını, gender bərabərliyinin təmin olunmasını, yaxşı iş mühitinin və buna uyğun iqtisadi inkişafının təmin edilməsini, sülhün, ədalətin təmin edilməsini, kütləvi qırğın silahlarının məhdudlaşdırılmasını və bütün bunlar üzrə ölkələrin məqsədə çatması üçün qarşılıqlı əməkdaşlığını dəstəkləyən sənəddir. Azərbaycan Minilliyin Bəyannaməsinə qoşularaq iqtisadiyyatını dayanıqlı iqtisadi inkişaf prinsipləri əsasında qurmağı qəbul etmişdir [9]. Azərbaycanda dayanıqlı iqtisadi inkişaf prinsipləri qəbul edildikdən sonra yoxsulluğun və işsizliyin azaldılması üçün dövlət proqramları qəbul edilmişdir. Buna uyğun olaraq "2003- 2005-ci illər üçün Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı" və "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı" qəbul edilmişdir. Bunlarla yanaşı, qəbul edilmiş regionların iqtisadi inkişafı ilə bağlı proqramlarda da bölgələrdə işsizliyin azaldılması, demoqrafik məsələlərin həlli, təhsil və sağlamlıq şəraitlərinin yaxşılaşdırılması, infrastruktur imkanlarının gücləndirilməsi, gender bərabərliyinin təmin edilməsi və qadınların sosial-iqtisadi fəaliyyətə cəlb edilməsi məsələləri öz əksini tapmışdır. Bu proqram və sənədlərin qəbul edilməsi və icrası nəticəsində müstəqilliyin ilk illərindəki böhranlı vəziyyət səbəbindən yaranmış olan ağır iqtisadi vəziyyətin səbəb olduğu mənfi tendensiyalar əsaslı şəkildə aradan qaldırılmış, dayanıqlı iqtisadi inkişaf yoluna keçid edilmişdir.

Dayanıqlı iqtisadi inkişaf strategiyalarının uğurla həyata keçirilməsi üçün qəbul olunan milli proqramlarla yanaşı, Azərbaycan beynəlxalq təcrübədən yararlanmaq üçün beynəlxalq və regional təşkilatlarla dayanıqlı inkişafın təmin edilməsi ilə bağlı əməkdaşlıq əlaqələri qurur. Bu yolda Azərbaycanın sıx əlaqə qurduğu qurumlardan biri də BMT-nin İnkişaf Proqramı agentliyidir. Azərbaycan Respublikası BMT-nin İnkişaf Proqramı agentliyi ilə bilik, təcrübə mübadiləsinin həyata keçirilməsi, iqtisadiyyatın şaxələndirilməsi, dayanıqlı inkişafla bağlı idarəçiliyin təkmilləşdirilməsi, ətraf mühitin vəziyyətinin yaxşılaşdırılması ilə bağlı birgə tədbirlərin həyata keçirilməsi yönündə əməkdaşlıq edir.

## TƏDQIQAT METODU

### Azərbaycanda dayanıqlı inkişafın təmin olunması amilləri

Azərbaycan Respublikası Prezidentinin 18 fevral 2003-cü il tarixli sərəncamı ilə qəbul edilmiş "Azərbaycan Respublikasında ekoloji cəhətdən dayanıqlı sosialiqtisadi inkişafa dair Milli Proqram" dayanıqlı inkişafın təmin edilməsi ilə bağlı qəbul edilmiş mühüm sənədlərdən biridir. Dövlət proqramında yoxsulluğun artmasının, sosial təbəqələşmənin kəskinləşməsinin yarada biləcəyi fəsadlara, intensiv iqtisadi inkişafın ekoloji məsələləri nəzərə almaması səbəbindən dünyada baş verən ekoloji böhranlara, bioloji müxtəlifliyin azalması və ətraf mühitin çirklənməsinin səbəb olduğu problemlərə toxunulmuş, resursların səmərəli şəkildə istifadə edilməsi nəticəsində gələcək nəsillərə çatdırılmasının önəmi vurğulanmışdır. Proqramda ətraf mühitin qorunması sahəsində koordinasiyanın gücləndirilməsi, milli, regional və beynəlxalq səviyyələrdə təbii ehtiyatların mühafizəsi, elmə əsaslanan inkişaf prinsiplərinin tətbiq olunması, indiki və gələcək nəsillərin maraqlarını təmin edərək iqtisadi və insan resurslarının istifadə edilməsində dayanıqlı inkişaf prinsiplərinin həyata keçirilməsi məsələləri öz əksini tapmışdır. Proqramda məqsədlərə nail olmaq üçün yerinə yetirilməli olan vəzifələr kimi aşağıdakılar qeyd olunmuşdur:

- ətraf mühitin keyfiyyətinin yaxşılaşdırılması üçün iqtisadi və insan potensialının idarə edilməsinin müvafiq üsullarından istifadə edilməsi;
- indiki və gələcək nəsillərin rifahının yaxşılaşdırılmasını təmin edən, stimullaşdıran iqtisadi modellərin, texnologiyaların yaradılması və istifadəsi;
- eyni və müxtəlif nəsillərin nümayəndələri arasında təminatın ədalətlilik prinsipləri əsasında həyata keçirilməsi;
- insanın həyat fəaliyyətini təmin edə biləcək sistemlərin, ekosistemlərin və biomüxtəlifliyin qorunması.

Qeyd olunanlarla yanaşı, proqramda əhali və əmək ehtiyatları ilə bağlı məsələlərdə dayanıqlı inkişaf prinsiplərinin tətbiq olunmasına da toxunulmuşdur. Burada əhalinin yaşayışı imkanlarının yaxşılaşdırılması, sağlamlıq vəziyyətinin inkişaf etdirilməsi, bu sahədə infrastrukturun qurulması, yaşayış məskənlərində gigiyenik normalara əmək edilməsi vəziyyətinin yaxşılaşdırılması, kadr potensialının imkanlarının genişləndirilməsi, ixtisaslaşdırma işlərinin həyata keçirilməsi, dövlətin işsizliklə bağlı vəziyyətə nəzarət edərək uyğun məşğulluq siyasətinin tətbiq edilməsi məsələləri və onların həlli yollarına toxunulmuşdur. Bundan başqa proqramda təbii ehtiyatların mövcud vəziyyəti və dayanıqlı inkişaf proqramının tələblərinə uyğun olaraq səmərəli şəkildə istifadə edilməsi, gələcək nəsillərə çatdırılması yönündə görüləcək işlərə də toxunulmuşdur [1.s.16].

25-27 sentyabr 2015-ci ildə BMT-nin üzvü olan dövlətlərin iştirak etdiyi Dayanıqlı İnkişaf Sammitində 2016-2030-cu illər üçün təsdiqlənmiş Dayanıqlı İnkişaf Məqsədlərinə Azərbaycan da qoşulmuşdur. Qeyd olunan məqsədlər Minilliyin Bəyənnaməsinə əsaslanaraq onun gələcək illər üzrə inkişaf və davam planlarının, eləcə də hədəflərinin əks olunduğu sosial, iqtisadi və ekoloji məsələləri özündə əhatə edən sənəddir. Azərbaycan dayanıqlı iqtisadi inkişafı təmin etmək üçün qeyd olunan beynəlxalq sənədlərə qoşulduqdan və milli inkişaf proqramlarını qəbul etdikdən sonra iqtisadiyyatını şaxələndirmək, sosial, iqtisadi və ekoloji təhlükəsizliyi balanslı və qarşılıqlı əlaqəli şəkildə təmin etmək məsələlərini qarşıya qoymuşdur. Dayanıqlı iqtisadi inkişafın təmin edilməsini sürətləndirmək və prosesə nəzarət etmək məqsədilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən 6 oktyabr 2016-cı ildə "Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının yaradılması haqqında" fərman imzalanmışdır. Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının başlıca vəzifəsi "Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik" sənədi ilə bağlı Azərbaycanın öhdəliyinə götürmüş olduğu məsələlərin icrasının əlaqələndirilməsidir. Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası Azərbaycanın qəbul etdiyi milli inkişaf proqramları və planlarının, strateji sosialiqtisadi hədəflərinin və həyata keçirilən ekoloji layihələrin Azərbaycan Respublikasının tərəfdaş çıxdığı dayanıqlı inkişafla bağlı beynəlxalq sənədlərlə uzlaşmasına nəzarət etməlidir [2., s.27].

Qarşılıqlı əməkdaşlıq çərçivəsində 2003-cü ildə pensiya sistemindəki milli islahatları dəstəkləmək və islahatları həyata keçirən əsas qurum olan Dövlət Sosial Müdafiə Fondunun yüksək səviyyəli İKT təminatını yaxşılaşdırmaqla bağlı görülən işləri, 2005-ci ildə dövlət qulluğu işinin təkmilləşdirilməsi, keyfiyyət və performasının artırılması üçün birgə işin həyata keçirilməsi, 2006-cı ildə Ədliyyə

Nazirliyi ilə birgə əhalinin dövlət reyestri xidmətinin mövcud imkanlarını, texniki bazasını və iş prinsiplərini beynəlxalq standartlar və İKT bazasının vəziyyətinə uyğunlaşdırmaq yönündə görülən işləri, 2009-cu ildə bərk tullantıların idarəçiliyi üzrə milli sistemin təkmilləşdirilməsi yönündə əməkdaşlıq və təcrübə transferini qeyd etmək olar. Sadalanan birgə əməkdaşlıq tədbirləri nəticəsində Azərbaycanın dayanıqlı iqtisadi inkişaf strategiyasının tətbiq olunması istiqamətində gördüyü işlərdə beynəlxalq təcrübələrin tətbiq olunması yönündə inkişaf tendensiyaları müşahidə olunmuşdur [8].

**Regionlarda dayanıqlı inkişafın təmin olunmasının mövcud vəziyyəti**

Azərbaycan ərazisi sosial-iqtisadi inkişaf səviyyəsinə və iqtisadi potensialına görə sanki bir-birindən kəskin fərqlənən 2 hissəyə bölünmüş kimi görünür: 1) ölkə ərazisinin cəmi 7%-ni təşkil edən və əhalisinin 30%-inə qədərinin yaşadığı Bakı şəhəri və Abşeron yarımadasında ölkənin iqtisadi potensialının təqribən 75-80%-i cəmləşir; 2) ölkə coğrafiyasının 93%-ni və əhalisinin 70%-ni əhatə edən digər ərazilərdə isə ölkə iqtisadiyyatının cəmi 20-25%-i formalaşır [10]. Eyni zamanda, qeyd olunan 2-ci hissədə olan ayrı-ayrı regionalar arasında da sosial-iqtisadi inkişaf səviyyəsinə və iqtisad potensialına görə ciddi fərqlər müşahidə olunur.

Milli yoxsulluq həddindən aşağı səviyyədə yaşayan ölkə əhalisinin xüsusi çəkisi 2010-cu ildəki 9,1 %-dən azalaraq 2015-ci ildə 4,9 % səviyyəsinə düşmüş, 2016-cı ildə 1,0 % bəndi artmış, sonrakı 3 il ərzində hər il ardıcıl olaraq 0,3% bəndi azalaraq 2019-cu ildə 4,8% səviyyəsinə enmişdir. Göstəricinin qiyməti 2020-ci ildə COVID-19 pandemiyası səbəbindən artsa da, 2021-ci ildə yenidən azalmış və 5,9 % (kişilər üzrə 5,9 %, qadınlar üzrə isə 6,0 %) səviyyəsinə enmişdir.




**Diaqram 1. Milli yoxsulluq həddindən aşağı səviyyədə yaşayan əhalinin xüsusi çəkisi (şəhər və kənd əraziləri üzrə)**

Mənbə: www.stat.gov.az

2021-ci ildə əhalinin hər nəfərinə düşən real ÜDM əvvəlki ilə nisbətən 5,1 % artmışdır. İlkin məlumatlara görə 2021-ci ildə ölkənin ÜDM-i 92857,7 milyon manat olmuşdur ki, bunun da 62,2 %-i iqtisadiyyatın qeyri neft-qaz sahələrində, 37,8 %-i isə neft-qaz sektorunda istehsal edilmişdir. ÜDM istehsalının 42,5 %-i sənayenin, 10,1 %-i ticarət və nəqliyyat vasitələrinin təmiri sahələrinin, 5,9 %-i tikintinin, 6,9 %-i nəqliyyat və anbar təsərrüfatının, 5,9 %-i kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılığın, 1,3 %-i turistlərin yerləşdirilməsi və ictimai iaşənin, 1,8 %-i informasiya və rabitə sahələrinin, 17,2 %-i isə digər sahələrin payına düşmüş, məhsula və idxala xalis vergilər isə ÜDM-in 8,4 %-ni təşkil etmişdir [10].

DSK-nın məlumatılarına əsasən, 2022-ci ildə ölkə üzrə ümumi məhsul buraxılışının həcmi 88.9 milyard manat təşkil edib. Bunun 60.9 milyard manatı (yaxud 68.9 %-i) Bakı şəhərinin, daha 5.3 mliyardı (5.9%-i) Abşeron iqtisadi rayonunun payına düşüb. Beləliklə, Bakı-Abşeron zonasında ölkə üzrə ümumi məhsulun 75.8%-i yaradılmışdır. Halbuki həmin il ölkənin ərazisi və əhalisi baxımından ən böyük iqtisadi rayon olan Aran iqtisadi rayonunda 7.5 mlrd. manatlıq ümumi məhsul yaradılıb ki, bu da ölkə üzrə ümumi məhsulun 9.0%-i deməkdir. 2022-ci ildə ölkə üzrə ümumi məhsulun 4.6%-i (4.1 mlrd. manat) Gəncə-Qazax iqtisadi rayonunun, 2.5%-i (1.9 mlrd. manat) Şəki-Zaqatala iqtisadi rayonunun, 2.2%-i (1.8 mlrd. manat) Lənkəran iqtisadi rayonunun, 2.5%-i (2.1 mlrd. manat) Quba-Xaçmaz iqtisadi rayonunun, 1.1%-i (1.0 mlrd. manat) Dağlıq Şirvan iqtisadi rayonunun və 4.7%-i (3.6 mlrd. manat) Naxçıvan Muxtar Respublikasının payına düşüb [24]. DSK-nın məlumatları əsasında deyə bilərik ki, 2022-ci ildə ölkənin əraziləri üzrə yaradılan illik ÜDM-in hər nəfər hesabı ilə düşən miqdarı Bakı şəhərində 3831 manat, Abşeron iqtisadi rayonunda 1000 manat, Gəncə-Qazax iqtisadi rayonunda 400 manat, Aran iqtisadi rayonunda 200 manat, Şəki-Zaqatala iqtisadi rayonunda 190 manat, Quba-Xaçmaz iqtisadi rayonunda 150 manat, Lənkəran-Astara iqtisadi rayonunda 90 manat, Dağlıq Şirvan iqtisadi rayonunda 88 manat olmuşdur (**Cəd. 1**). Göründüyü kimi, Bakı şəhərində

adambaşına düşən ÜDM-in miqdarı ilə ölkə üzrə ən aşağı göstəriciyə malik region arasında fərq 43 dəfədən çoxdur.

**Cədvəl 1.Ərazi vahidlərində 2022-ci il üzrə yaradılan illik ÜDM-nin hər nəfərinə düşən miqdarı**

| Ərazi vahidləri | 2018 | 2019 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|---|
| Bakı | 3487 | 3499 | 3560 | 3642 | 3831 |
| Abşeron | 957 | 961 | 965 | 970 | 1000 |
| Gəncə-Qazax | 349 | 355 | 371 | 380 | 400 |
| Aran | 253 | 261 | 280 | 284 | 200 |
| Şəki-Zaqatala | 160 | 164 | 169 | 172 | 190 |
| Quba-Xaçmaz | 125 | 128 | 135 | 138 | 150 |
| Lənkəran-Astara | 80 | 84 | 87 | 88 | 90 |

**Mənbə:** Cədvəl DSK-nın məlumatları əsasında müəllif tərəfindən tərtib olunmuşdur.

DSK-nın məlumatına əsasən, 2022-ci ildə Azərbaycanda əhalinin ümumi gəlirləri 56.8 milyard manat olmuşdur. Bunun 33.0 milyard manatı yaxud 58.1%-i Bakı şəhərində, 2.3 milyardı yaxud 4.1%-i isə Abşeron ərazisində formalaşmışdır: başqa sözlə, ölkə üzrə əhalinin illik ümumi gəlirlərinin 62.2%-i Bakı-Abşeron zonasının payına düşmüşdür. Əhalinin ümumi gəlirlərinin 12.7%-i (7.2 mlrd. manat) Aran, 8.2%-i (4.7 mlrd. manat) Gəncə-Qazax, 4.5%-i (2.6 mlrd. manat) Lənkəran, 3.3%-i (1.9 mlrd. manat) Şəki-Zaqatala, 3.3%-i (1.9 mlrd. manat) Quba-Xaçmaz və 1.7%-i (1.0 mlrd. manat) Dağlıq Şirvan iqtisadi rayonlarının, 3.3%-i (1.9 mlrd. manat) isə Naxçıvan MR-nın payına düşümüşdür [10].

Cədvəl 1-in məlumatları əsasında deyə bilərik ki, son 5 il ərazində adambaşına düşən ÜDM-in həcmində dinamik artım müşahidə olunmaqdadır. Belə ki, 2018-ci ildə Bakı şəhəri üzrə adambaşına düşən ÜDM-in həcmi 3487 manat olmuşdursa, 2019-cu ildə bu göstərici çox cüzi (12 manat) artmışdır. 2020-ci ildə isə bu müsbət dinamika bir qədər də artaraq (61 manat) 3560 manat olmuşdur. Eyni müsbət dinamikanı 2021 və 2022-ci illər üçün də demək olar. Belə ki, 2021-ci ildə 2020-ci illə müqayisədə Bakı şəhəri üzrə adambaşına düşən illik ÜDM-in həcmi 82 manat artaraq 3642 manat həcmində olmuşdur. 2022-ci ilin statistik rəqəmləri onu deməyə imkan verir ki, 2022-ci ildə Bakı şəhəri üzrə adambaşına düşən illik ÜDM-un həcmi 5.2 faiz artaraq 3831 manat həcmində olmuşdur.

Sosial xidmətlərlə bağlı təminat dedikdə ilk öncə ağlımıza təhsil və səhiyyə ilə xidmətləri ilə bağlı təminat gəlir. Məktəbəqədər təhsillə və ixtisaslı kadrları ilə bağlı Bakı və regionlar arasında müxtəlif fərqliliklər mövcuddur. 2022-ci ildə əhalinin hər 10000 nəfərinə düşən həkim sayı Bakı şəhərində - 91, Abşeronda - 30, Gəncə-Qazax iqtisadi rayonunda -19, Şəki-Zaqatala iqtisadi rayonunda - 17, Lənkəran iqtisadi rayonunda - 10, Quba-Xaçmaz iqtisadi rayonunda - 13, Aran iqtisadi rayonunda - 14, Dağlıq Şirvan iqtisadi rayonunda - 10 təşkil edir [10].

Mərkəzləşdirilmiş şəbəkə vasitəsilə içməli su təminatı müxtəlif bölgələrdə çox fərqlidir. Bu xidmət üzrə ən aşağı göstərici 2-10% intervalındadır (Gədəbəy, Ağcabədi, Cəlilabad və s. rayonlarda). Mərkəzləşdirilmiş kanalizasiya xidmətləri ilə təminat isə regionlarda daha pis vəziyyətdədir. Rəsmi rəqəmlərdən görünür ki, 60-dan artıq kənd rayonundan 18-də mərkəzləşdirilmiş kanalizasiya xidmətləri ilə təminat səviyyəsi 20%-dən, öz növbəsində 32 bölgədə 40%-dən aşağıdır [10].

Son 5 il ərzində (2018-2022-ci illər) əmək bazarının leqallaşdırılması və yeni iş yerlərinin yaradılması hesabına özəl sektorda çalışan işçilərin sayı təxminən 2 dəfə artmışdır ki, bu da son nəticədə dövlət büdcəsinə həmin özəl müəssisələr tərəfindən ödənilən vəsaitlərin həcmini 200 faizə qədər artmışdır. 2018-2022-ci illərdə özəl müəssiələrdən dövlət büdcəsinə ödənilən İşsizlikdən sığorta üzrə ödənişlərin həcmi isə 261.3 faiz artırmışdır. Əmək bazarının leqallaşması və yeni iş yerlərinin yaradılması hesabına 2023-ci ilin I rübündə qeyri-dövlət sektoru üzrə işçi sayları ötən ilin eyni dövrü ilə müqayisədə 13 faiz artıb, cari ilin 6 ayı ərzində ötən ilin müvafiq dövrü ilə müqayisədə bu sektor üzrə dövlət büdcəsinə 36,1 faiz, işsizlikdən sığorta üzrə isə 51 faiz çox vəsait yönləndirilib [10].

Azərbaycanda təhsilin əsas göstəricilərini təhlil etsək görərik ki, 2012-ci ildə Azərbaycanda məktəbəqədər təhsil müəssisələrinin sayı 1677 ədəd olmuşdur. 2021-ci ildə isə bu göstərici 9,0 faiz artaraq 1828 ədədə bərabər olmuşdur. Cədvəlin təhlilindən məlum olur ki, məktəbəqədər təhsil müəssisələrinin ümumi payında dövlət sektoru xüsusilə fərqlənir. Belə ki, 2012-ci ildə Azərbaycanda 1637 ədəd dövlət tabeçiliyində olan məktəbəqədər təhsil müəssisəsi, 40 ədəd isə özəl mülkiyyətə sahib məktəbəqədər təhsil müəssisəsi fəaliyyət göstərmişdir. Bu isə o deməkdir ki, 2012-ci ildə dövlət mülkiyyətində olan məktəbəqədər təhsil müəssisələrinin ümumi məktəbəqədər təhsil müəssisələrindəki payı 97,6 faiz təşkil etmişdir. Eyni göstərici 2021-ci ildə 5,1 fai azalaraq 92.5 faiz

həcmində olmuşdur. Bu isə onu göstərir ki, 2021-ci ildə özəl mülkiyyətə sahib olan məktəbəqədər təhsil müəssisələrinin nisbi sayı artmışdır.

DSK tərəfindən aparılan araşdırmalar onu deməyə imkan verir ki, 2012-ci ildə məktəbəqədər təhsil müəssisəsində təhsilalanların ümumi sayı 111090 nəfər olmuşdursa, 2021-ci ildə 12,8 faiz artaraq 125318 nəfərə bərabər olmuşdur. Burada diqqət çəkən əsas məsələ dövlət və özəl mülkiyyətdə olan məktəbəqədər təhsil müəssisələrində təhsilalanların sayıdır. Məlumdur ki, dövlət mülkiyyətində olan məktəbəqədər təhsil müəssisələri ödənişsiz, özəl mülkiyyətdə olanlar isə ödənişli fəaliyyət göstərir. 2012-ci ildə dövlət mülkiyyətində olan məktəbəqədər təhsil müəssisəsində təhsilalanların ümumi həcmi 98,67 faiz olmuşdursa, 2021-ci ildə bu göstərici bir qədər azalaraq 95,63 faizə bərabər olmuşdur. Başqa sözlə desək, 2012-ci ildə özəl mülkiyyətdə olan məktəbəqədər təhsil müəssisələrində təhsilalanların sayı 1,43 faiz olmuşdursa, 2021-ci ildə bu göstərici artaraq 4,37 faiz bəndində olmuşdur. 2012-2021-ci illərin eyni göstəricilərini müqayisə etsək görərik ki, hər sonrakı il əvvəlki illə müqayisədə özəl mülkiyyətdə olan məktəbəqədər təhsil müəssisələrində təhsilalanların sayında artan dinamika müşahidə olunur. Özəl mülkiyyətdə olan məktəbəqədər təhsil müəssisələrinin ödənişli əsaslarla fəaliyyət göstərdiyini nəzərə alsaq, əhalinin ictimai rifahının bu illər ərzində yüksəldiyini deyə bilərik [10].

Yuxarıda qeyd etdiklərimizi aşağıdakı qrafikdə əyani şəkildə görə bilərik (Qrafik 2.)

**Qrafik 2. Ali təhsil müəssisəsində təhsil alan tələbələrin sayı**




**Mənbə:** www.stat.gov.az

Cədvəl məlumatlarından müəyyən olundu ki, 2012-ci ildə Azərbaycanda ali təhsil müəssisələrinin ümumi sayı 52 vahid olmuşdur ki, bunun da 37 vahidi dövlət, 15 vahidi isə özəl mülkiyyətdə olan ali təhsil müəssisələridir. 2012-ci ildə 52 ali təhsil müəssisəsi üzrə ümumi təhsilalanların sayı 145584 nəfər olmuşdur. 2013-cü ildə bu göstərici 3.9 faiz artaraq 151274 nəfərə bərabər olmuşdur. 2014-cü ildə isə 2013-cü illə müqayisədə ali təhsil müəssisələrində təhsil alan tələbələrin sayı 4.58 faiz artaraq 158212 nəfərə bərabər olmuşdur. 2015-ci ildə isə 2014-cü illə müqayisədə bu göstərici 1.91 faiz artmışdır. Cədvəl 2-nin məlumatları onu deməyə imkan verir ki, 2012-2021-ci illər ərzində Azərbaycanda ali təhsil müəssisələrində oxuyan tələbələrin sayında dinamik artım müşahidə olunmuşdur. 2021-ci ilin mövcud göstəriciləri onu deməyə imkan verir ki, 2012-ci illə müqayisədə 2021-ci ildə Azərbaycanda ali təhsil müəssisələrinin tələbələrinin ümumi sayı 45.74 faiz artaraq 212173 nəfər olmuşdur. Bu isə son 10 il ərzində ali təhsil müəssisələrində təhsil alan tələbələrin sayında dinamik sıçrayışın olduğunu göstərir.

Azərbaycan Respublikasında son illərdə səhiyyənin inkişafına ayrılan xərclərin artması bu sektorun inkişafını əsas prioritet kimi ön sıralara çıxarır. 2 nömrəli Əlavədə 2017-2021-ci illərdə dövlət büdcəsinin səhiyyə, sosial müdafiə və sosial təminat xərcləri qeyd olunmuşdur.

Cədvəl 2-nin məlumatları əsasında deyə bilərik ki, 2013-cü ildə Azərbaycanda fəaliyyət göstərən bütün ixtisaslardan olan həkimlərin ümumi sayı 32.3 min nəfər olmuşdur ki, bu da əhalinin hər 100min nəfərinə düşən həkim sayının 35 nəfər olması deməkdir. Cədvəl 2.4-ün məlumatları onu deməyə

imkan verir ki, 2013-2022-ci illərdə bütün ixtisaslardan olan həkimlərin sayında çox cüzi dəyişikliklər olmuşdur. Belə ki, 2022-ci ildə respublikada fəaliyyət göstərən bütün ixtisaslardan olan həkimlərin ümumi sayı 32,0 min nəfər olmuşdur ki, bu da 2013-cü ilin göstərici ilə müqayisədə 300 nəfər azdır (Cədvəl 2.).

**Cədvəl 2.2013-2022-ci illərdə Azərbaycanda səhiyyənin əsas göstəriciləri (ilin əvvəlinə)**

| | 2018 | 2019 | 2020 | 2021 | 20221) |
|---|---|---|---|---|---|
| Bütün ixtisaslardan olan həkimlərin sayı, min nəfər | 31,9 | 32,5 | 31,8 | 31,8 | 32,0 |
| əhalinin hər 10 000 nəfərinə | 32,6 | 32,9 | 32,0 | 31,8 | 31,8 |
| Orta tibb işçilərinin sayı, min nəfər | 52,8 | 54,0 | 55,7 | 54,8 | 53,3 |
| əhalinin hər 10 000 nəfərinə | 54,0 | 54,8 | 55,9 | 54,8 | 53,1 |
| Xəstəxana müəssisələrinin sayı | 566 | 563 | 570 | 518 | 342 |
| onlarda çarpayılarının sayı, min | 44,1 | 44,0 | 44,3 | 44,5 | 39,1 |
| əhalinin hər 10 000 nəfərinə | 45,1 | 44,7 | 44,5 | 44,5 | 38,9 |
| xəstə uşaqlar üçün çarpayıların sayı, min | 5,9 | 5,8 | 6,0 | 5,5 | 4,3 |
| hamilə və zahı qadınlar üçün çarpayıların sayı, min | 4,4 | 4,4 | 4,4 | 4,2 | 3,4 |
| Əhaliyə ambulator-poliklinika yardımı göstərən müalicə müəssisələrinin sayı | 1737 | 1741 | 1726 | 1723 | 1663 |

Mənbə: www.stat.gov.az

Aşağıdakı xəritə-sxemdə (Xəritə-sxem 1.) 2022-ci ilin ilin əvvəlinə ölkənin inzibati ərazi vahidləri üzrə əhalinin hər 10 min nəfərinə düşən həkimlərin sayı (nəfər) verilmişdir.




**Xəritə-sxem 1. 2022-ci ilin ilin əvvəlinə ölkənin inzibati ərazi vahidləri üzrə əhalinin hər 10 min nəfərinə düşən həkimlərin sayı (nəfər)**

Mənbə: www.stat.gov.az

Xəritə sxemin məlumatları əsasında deyə bilərik ki, həkimlərin ən sıx cəmləşdiyi ərazilər Bakı, Sumqayıt və digər Bakı ətrafı ərazilərdir. Belə ki, bu ərazilərdə əhalinin hər 10min nəfərinə düşən həkim sayı 60,1-91,7 intervalındadır. Bu göstərici üzrə növbəti yerləri Qazax, Tovuz, Zaqatala, Qax, Şəki, Qəbələ, Göyçay, Bərdə, Siyəzən, Abşeron, Salyan və Lənkəran rayonları tutur. Belə ki, adları qeyd olunan rayonlar üzrə əhalinin hər 10 min nəfərinə düşən həkim sayı 30,1-60,0 intervalındadır.

Cədvəl 2-nin məlumatlarından aydın olur ki, 2013-2022-ci illər ərzində respublikada fəaliyyət göstərən xəstəxanaların sayında artım və azalmalar müşahidə olunmuşdur. Lakin bu dalğalanma 2022-ci il istisna olmaqla cüzi fərqlə müşahidə olunmuşdur. Belə ki, 2013-cü ildə respublikada fəaliyyət göstərən xəstəxanaların ümumi sayı 539 vahidəbərabər olmuşdur. 2021-ci ildə isə bu göstərici 2013-cü illə müqayisədə 3.9 faiz azalaraq 518 vahidə bərabər olmuşdur. 2022-ci ildə isə respublikada fəaliyyət göstərən xəstəxanaların sayında kəskin azalma müşahidə olunmuşdur. Belə ki, 2022-ci ildə bu göstərici 342 vahidə bərabər olmuşdur ki, bu da 2021-ci illə müqayisədə 33,98 faiz, 2013-cü illə müqayisədə isə 36,55 faiz aşağıdır [10].

Aşağıdakı xəritə-sxemdə (Xəritə-sxem 2.) 2022-ci ilin ilin əvvəlinə ölkənin inzibati ərazi vahidləri üzrə əhalinin hər 10 min nəfərinə düşən tibb işçilərinin sayı (nəfər) verilmişdir.




**Xəritə-sxem 2. 2022-ci ilin ilin əvvəlinə ölkənin inzibati ərazi vahidləri üzrə əhalinin hər 10 min nəfərinə düşən tibb işçilərinin sayı (nəfər)**

Mənbə: www.stat.gov.az

Xəritə-sxem 2-dən aydın olur ki, tibb işçilərinin sıxlığına görə də Bakı və ətrafındakı ərazilər üstünlük təşkil edir. Belə ki, bu ərazilərdə əhalinin hər 10 min nəfərinə düşən tibb işçilərinin ümumi sayı 80,1-119,1 intervalındadır. Qazax, Tovuz, Zaqatala, Qax, Şəki, Oğuz, Ağdaş, Bərdə, Xocavənd, Şahbuz, Salyan və Sumqayıtda əhalinin hər 10 min nəfərinə düşən tibb işçilərinin sayı 50,1-80,0 intervalındadır. Əhalinin hər 10 min nəfərinə ən az düşən tibb işçilərinin sayı isə Kəlbəcər, Şuşa, Qubadlı, Cəbrayıl, Zəngilan, Qobustan, Abşeron, Hacıqabul, Sabirabad, Saatlı, Masallı, Yardımlı və Lerik ərazilərdir. Belə ki, bu ərazilərdə əhalinin hər 10 min nəfərinə düşən tibb işçilərinin sayı 0-25,0 intervalındadır.

44 günlük Vətən müharibəsi nəticəsində Qarabağın erməni işğalından azad edilməsi bu ərazilərdə dayanıqlı inkişafın təmin olunması zərurətini ortaya qoydu. 44 günlük Vətən müharibəsində

qazanılmış parlaq Zəfərdən sonra qarşıda duran əsas vəzifələrdən birincisi məhz işğaldan azad edilmiş ərazilərin bərpası, həmin yerlərə həyatın yenidən qaytarılması idi. 30 il ərzində Ermənistanın işğalı altında qalmış kəndlərin, rayonların, şəhərlərin, mədəni-tarixi abidələrin yerlə-yeksan olunması, məhv edilməsi, dağıdılması həmin ərazilərin bərpasına müasir kompleks yanaşmanı tələb edirdi. Bu mənada, təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" əsasında qəbul olunmuş "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda əks olunmuş "İşğaldan azad olunmuş ərazilərə Böyük Qayıdış" Milli Prioritetinin icrasının təmin edilməsi məqsədilə Prezident İlham Əliyevin Sərəncamı ilə icrasına başlanılmış "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" xüsusi əhəmiyyət kəsb edir [5., s.90].

Dövlət Proqramı qlobal trendləri nəzərə alınaraq hazırlanıb: "Dövlət Proqramında işğaldan azad edilmiş ərazilərdə aparılmış bərpa-quruculuq işləri və mövcud vəziyyət, nail olunması hədəflənən məqsədlər və onlara uyğun hədəf göstəriciləri, Dövlət Proqramının prioritet istiqamətləri, əhalinin doğma torpaqlarına geri qayıdışı məsələləri, gözlənilən nəticələr, ehtimal edilən risklərin idarə olunması, müvafiq vəzifələrin yerinə yetirilməsi üçün maliyyələşmə mənbələri və həyata keçiriləcək tədbirlər öz əksini tapıb. Dövlət Proqramının hazırlanmasında mütərəqqi beynəlxalq təcrübə, bu sahədə strateji inkişaf tendensiyaları, işğaldan azad edilmiş ərazilərin sosial-iqtisadi potensialı və dünya iqtisadiyyatının müasir çağırışları nəzərə alınıb. Dövlət Proqramının əhatə dairəsini Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına daxil olan ərazilər təşkil edir. Eləcə də işğaldan azad olunmuş ərazilərin bərpası və dayanıqlı inkişafı istiqamətində Dövlət Proqramı çərçivəsində həyata keçiriləcək tədbirlərin məqsədləri müəyyənləşdirilərkən Birləşmiş Millətlər Təşkilatının və digər beynəlxalq qurumların irəli sürdükləri qlobal inkişaf prioritetləri nəzərə alınıb.

İşğaldan azad edilmiş ərazilərdə bərpa və yenidənqurma işlərinin uğurla aparılması əhalinin bu ərazilərə köçürülməsi ilə nəticələnmişdir. Eyni zamanda da Qarabağ iqtisadi zonasına yerli əhalinin köçürülməsi bu ərazilərdə dayanıqlı inkişafın təmin edilməsini zərurətə çevirmişdir. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən deyə bilərik ki, işğaldan azad edilmiş ərazilərdə bərpa və yenidənqurma işlərindən sonra yeni iş yerləri vətəndaşların xidmətinə verilmişdir. Aşağıdakı cədvəldə (Cəd.3) 2018-2022-ci illərdə işğaldan azad edilmiş ərazilərdə açılmış yeni iş yerlərinin sayı qeyd olunmuşdur.

**Cədvəl 3. 2018-2022-ci illərdə işğaldan azad edilmiş ərazilərdə yeni iş yerlərinin sayı**

| **Rayon** | **2018** | **2019** | **2020** | **2021** | **2022** |
|---|---|---|---|---|---|
| Ağdam | 658 | 1952 | 1044 | 146 | 184 |
| Tərtər | 563 | 1035 | 744 | 128 | 103 |
| Füzuli | 598 | 1056 | 99 | 103 | 154 |
| Xocalı | 13 | 9 | 13 | 3 | 8 |
| Xocavənd | 64 | 13 | 18 | 35 | 100 |
| Şuşa | 27 | 27 | 19 | 7 | 128 |
| Cəbrayıl | 155 | 199 | 14 | 45 | 53 |
| Qubadlı | 192 | 31 | 23 | 16 | 64 |
| Zəngilan | 78 | 1 | 0 | 19 | 48 |

| | | | | | |
|---|---|---|---|---|---|
| Kəlbəcər | 178 | 45 | 136 | 71 | 49 |
| Laçın | 90 | 47 | 57 | 48 | 9 |
| **Cəmi** | **2616** | **4415** | **2167** | **621** | **900** |

Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi

Cədvəldən göründüyü kimi, **2020-2022-ci illərdə işğaldan qurtarılmış rayonlarda yeni açılan iş yerlərinin sayı əvvəlki dövrlə müqayisədə azalıb.** Belə ki, həmin dövrdə bütün ölkə üzrə yeni açılan iş yerlərinin sayında azalma gözə çarpıb. Bunun başlıca səbəbi pandemiya məhdudiyyətləri olub. Unutmaq olmaz ki, sözügedən dövrdə bir sıra sahələrin fəaliyyəti dayanmışdı.

İşğaldan azad edilmiş ərazilərdə müharibədən sonra ən çox iş yerlərinin Ağdam, Tərtər və Füzuli rayonlarında açıldığı gözə çarpır. Ancaq onu da unutmaq olmaz ki, bu rayonların bir hissəsi müharibədən öncə də Azərbaycanın nəzarətində idi. Bu üzdən, həmin rayonlarda müharibədən öncə də daha çox iqtisadi fəaliyyət vardı.

İşğaldan qurtarılan bölgələrdə, əsasən, tikinti işləri aparılır. Deməli, həmin bölgələrdə ən çox iş yeri yaratmaq potensialına sahib sahə məhz tikinti sektorudur. Onu da unutmaq olmaz ki, Qarabağda tikinti sahəsində fəaliyyət göstərən şirkətlər azad edilmiş rayonlardan kənar bölgələrdə də formalaşa bilər. Onlar digər şəhər və rayonlarda fəaliyyət göstərsə də, işçilərini bu bölgələrə göndərir və Qarabağda layihələr gerçəkləşdirir.

**Cədvəl 4. 2020-2022-ci illərdə Azərbaycanda tikinti sektorunda çalışan muzdlu işçilərin sayı**

| **Tarix** | **İşçi sayı** |
|---|---|
| 01.10.2020 | 135 min 947 |
| 01.01.2021 | 132 min 831 |
| 01.04.2021 | 121 min 513 |
| 01.07.2021 | 127 min 818 |
| 01.10.2021 | 128 min 846 |
| 01.01.2022 | 125 min 205 |
| 01.04.2022 | 123 min 525 |
| 01.07.2022 | 130 min 328 |
| 01.10.2022 | 130 min 51 |
| 01.01.2023 | 122 min 385 |

Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi

Cədvəldən göründüyü kimi, müharibənin başladığı dövrdən sonra Azərbaycanda tikinti sektorunda çalışan muzdlu işçilərin sayı müharibədən əvvəlki dövrə nisbətən azdır. Amma burada da pandemiya dönəmində iqtisadi fəaliyyətin daralmasını nəzərə almaq lazımdır. Hərçənd, bu nəzərə alınsa da məlum olur ki, **müharibədən sonra Azərbaycanın tikinti sektorunda çalışanların sayında kəskin artım müşahidə edilmir.** Bunun ən ağlabatan səbəblərindən biri odur ki, həmin dövrdə tikinti sahəsində çalışan şirkətlər öz mövcud işçilərini bu bölgəyə göndərib. Başqa deyimlə, bərpa işlərinə, əsasən, əvvəldən bu sahədə çalışan işçilər cəlb edilib. Sadəcə, onlar öncələr ölkənin başqa bölgələrində fəaliyyət göstərirdisə, indi fəaliyyətlərini Qarabağda davam etdirirlər.

Müharibədən sonra Azərbaycan İran və Ermənistanla dövlət sərhədinə nəzarəti tam bərpa etdi. Bu baxımdan, hərbi qulluqçuların sayında da artım gözlənilə bilər. Ancaq bu istiqamətdə də atılan addımlardan biri ölkənin digər ərazilərində dislokasiya olunan hərbi birləşmələrin bu ərazilərə köçürülməsi oldu.

2020-ci ildən bəri bütün ölkə üzrə açılan yeni iş yerlərinin sayında azalma gözə çarpır. Özəlliklə yeni yaradılmış müəssisələrdə açılan iş yerlərinin sayında kəskin azalma var. Məsələn, 2019-cu ildə Azərbaycanın yeni yaradılmış müəssisələrində 57 min iş yeri açılmışdı [10]. 2020-ci ildə bu rəqəm 8 min nəfərə, 2021-ci ildə 7 min nəfərə geriləyib. Ötən il yeni müəssisələrdə açılan iş yerlərinin sayı bir qədər də azalaraq 6 min 275 nəfərə enib [9]. **Deməli, üç il içində ölkədə yeni yaranan müəssisələrin yaratdığı iş yerlərinin sayı 9 dəfə azalıb.** Bu rəqəm həm də onu göstərir ki, Azərbaycan iqtisadiyyatı yeni iş yerlərinin açılması baxımından hələ də pandemiyadan öncəki duruma dönə bilməyib.

Yeni yaradılan müəssisələrdə açılan iş yerləri ilə bağlı daha bir məqam diqqət çəkir. Məşğulluqda paytaxt Bakının payı daha da artıb. Məsələn, **2019-cu ildə ölkədə yeni müəssisələrin yaratdığı iş yerlərinin cəmi 55.5 faizi Bakının payına düşürdü. 2022-ci ildə bu rəqəm 80.2 faizə yüksəlib [9].** Başqa sözlə, yeni müəssisələrin yaratdığı hər 10 iş yerindən səkkizi Bakının, qalan ikisi ölkənin digər regionlarının payına düşüb. Bu rəqəm də Azərbaycanda regionlar arasında iqtisadi bərabərsizliyin nə qədər böyük həddə olduğunun xəbərçisidir.

**NƏTİCƏ**

İşğaldan azad edilmiş ərazilərin yenidən qurulması, bərpası və sonrakı mərhələlərdə dayanıqlı inkişafına nail olunması üçün önəmli strateji istiqamətlərdən biri bölgənin minalardan, partlamamış hərbi sursatdan, tərkibində partlayıcı olan qurğulardan və digər partlayıcı qalıqlardan təmizlənməsi vasitəsilə əhalinin, infrastruktur və istehsal obyektlərinin, kənd təsərrüfatı təyinatlı ərazilərin, həmçinin strateji əhəmiyyətli tikililərin və binaların təhlükəsizliyinin təmin edilməsidir" – deyən Ramil Vəlibəyov əlavə edib ki, işğaldan azad edilmiş ərazilərin yenidən qurulması, bərpası, dayanıqlı inkişafının və əhalinin yüksək həyat səviyyəsinin təmin olunması üçün zəruri infrastrukturun yaradılması xüsusi önəm daşıyır: "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" strateji məqsədləri əhalinin dayanıqlı məskunlaşması və ərazilərin iqtisadi fəaliyyətə reinteqrasiyasıdır. Proqram çərçivəsində işğaldan azad edilmiş ərazilərdə aparılan bütün yenidənqurma, bərpa və şəhərsalma işləri qabaqcıl urbanizasiya modellərinin tətbiqi ilə həyata keçiriləcək. Bütün bunlarla yanaşı, insan kapitalının reallaşdırılması, tarixi və mədəni abidələrin qorunması, yeni iş yerlərinin açılması, dövlət xidmətlərin əlçatanlığının təmin edilməsi, əhalinin geri qayıdışı və ərazilərdə dayanıqlı icmaların yaradılması, ərazilərin inkişafı və reinteqrasiyası, azad edilmiş ərazilərdə iqtisadi canlanmanın yaradılması, iqtisadi ixtisaslaşdırılmanın aparılması, ekoloji mühitin yaxşılaşdırılması və ekoloji təmiz texnologiyaların tətbiqi, "Yaşıl enerji zonası" yaradılması və s. həyata keçirilən tədbirlərinin əhatə dairəsinin nə qədər geniş olmasından xəbər verir.

**ƏDƏBİYYAT SİYAHISI**

1. Şəkərəliyev A.Ş. Dövlətin iqtisadi siyasəti: Dayanıqlı və davamlı inkişafın təntənəsi. Bakı: İqtisadiyyat Universiteti, 2011, 542 s.

2. Hüseynov S. Davamlı insan inkişafının strateji istiqamətləri. Bakı, "Adiloğlu" nəşriyyatı, 2003, 264. səh. s.25.

3. Alıyev İ.H., Hüseynov S.Y. və b. "Milli iqtisadiyyat: modernləşmə və davamlı inkişaf". Bakı, "Avropa" nəşriyyatı, 2012, 419 s.

4. Eyüp Zengin "Davamlı inkişaf və vahid ekoloji siyasət: Türkiyə və Azərbaycan". Bakı, Adiloğlu, 2007, 260 s.

5. Rzayev A.R. “Davamlı iqtisadi inkişafın təmin edilməsində nəqliyyat xidmətlərinin rolu”. “İqtisadiyyatın davamlı inkişafı: problemlər və perspektivlər” mövzusunda Beyn. konfrans, SDU, 27-28 aprel 2016, I hissə, səh. 209-211

6. Əsədov A.M. “Nəqliyyat sisteminin davamlı inkişafının ekoloji məsələləri”. “Nəqliyyatın ekoloji problemləri”, Beynəlxalq konfransın materialları, Bakı, AzTU, 24-26 may 2011, səh.96-102

7. https://www.cbar.az/pages/monetary-policy/committee

8. https://www.cbar.az/infoblocks/money_reserve_usd

9. http://www.iqtisadiislahat.org/store//media/documents/.../Ticaret_missiyası_%20u zre_serh.pdf

10. www.stat.gov.az

# SINQAPURUN ISLAM ÖLKƏLƏRI ILƏ MÜNASIBƏTLƏRI

**ƏZIZƏ GÜLÜMCANLI**
AMEA. Akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstititu,
“Asiya və Sakit okean regionu ölkələri” şöbəsi, kiçik elmi işçi
ezizeayaz@gmail.com
BAKI, AZƏRBAYCAN

**XÜLASƏ**

Sinqapurun islam ölkələri ilə münasibətlərini təhlil edən tədqiqatda əvvəlcə Sinqapurun islam populyasiyası, onun islam keçmişi və qanunvericiliyində islam ilə bağlı bəndlər tədqiq edilir, sonra isə müxtəlif müsəlman ölkələri ilə regional əlaqələrindən bəhs edilir. Tədqiqatda qeyd edilir ki, əhalisinin 15 faizdən çoxu müsəlman olan Sinqapur həm bu səbəbdən, həm multikultural dəyərlərin təbliği baxımından, həm də coğrafi mövqeyi üzündən islam ölkələri ilə geniş əməkdaşlıq əlaqələrinə malikdir. Bununla yanaşı, vurğulanır ki, müstəqilliyinin ilk illərində yaxınlıqdakı müsəlman ölkələr ilə əlaqələr quran Sinqapur zaman keçdikcə və beynəlxalq əlaqələri genişləndikcə Afrika və Yaxın Şərqdəki islam ölkələri ilə də yaxın əlaqələr qurmuşdur. Yaxın zamanlarda şəhər-dövlətin İslam Əməkdaşlıq Təşkilatı ilə də birbaşa yaxın əlaqələr quracağı gözlənilir. Tədqiqatda gəlinən nəticə budur ki, Sinqapurun islam ölkələri ilə münasibətləri çox genişdir və əksər islam ölkələri ilə əməkdaşlıq əlaqələrinə malikdir. Misir, Malayziya, Banqladeş, Pakistan, Türkiyə, Özbəkistan, İndoneziya, Qətər kimi ölkələr Sinqapurun sıx əməkdaşlıq etdiyi müsəlman ölkələr sırasındadır. Sinqapurun bu ölkələrlə iqtisadi-siyasi, hərbi-siyasi, mədəni-elmi, iqtisadi-ticarət və s. kimi sahələrdə çox geniş və uzunmüddətli əlaqələri vardır. Bu da öz növbəsində Sinqapurun islam dünyasına verdiyi dəyəri və islam ölkələri ilə əməkdaşlıq arzusunu göstərir.

**AÇAR SÖZLƏR: İslam ölkələri, Sinqapur, regional əlaqə, əməkdaşlıq, müsəlman.**
**KEY WORDS: Islamic countries, Singapore, regional connection, cooperation, muslim.**

## GIRIŞ

Əhalisinin 15 faizdən çoxu müsəlman olan Sinqapur həm bu səbəbdən, həm multikultural dəyərlərin təbliği baxımından, həm də coğrafi mövqeyi üzündən islam ölkələri ilə geniş əməkdaşlıq əlaqələrinə malikdir. İslam Əməkdaşlıq Təşkilatına üzv olmasa da, bu təşkilatın müxtəlif üzvləri ilə geniş iqtisadi-siyasi, həmçinin elmi və mədəni əlaqələr qurmuşdur.

Ən son 2020-ci il siyahıyaalmasına əsasən, Sinqapur sakinlərinin təxminən 15,6%-i müsəlmandır. İslam buddizm və xristianlıqdan sonra ölkədə üçüncü ən böyük dindir. Sinqapur müsəlmanlarının beşdə dördündən çoxu etnik malaylar, 13 faizi isə hindistanlıdır. Qalan nisbətə yerli Çin, Avrasiya və

Ərəb icmaları, habelə xarici miqrantlar daxildir. Sinqapurdakı müsəlmanların əksəriyyəti Şafii və ya Hənəfi məzhəbinə tabe olan ənənəvi sünni müsəlmanlardır.

Tədqiqat işinində Sinqapur şəhər-dövlətinin islam dövlətləri ilə münasibətinə, o cümlədən İslam Əməkdaşlıq Təşkilatına daxil olacağının məlumatı verilmişdir. Ümumilikdə tədqiqat işi giriş, 2 fəsil və nəticədən ibarətdir.

**TƏDQIQAT METODU**

**Sinqapurun islam tarixi və qanunvericiliyi**

İslam bürokratiyası islamın bölgəyə gəlişindən bəri uzun müddət Malay Sultanlıqlarının tərkib hissəsini təşkil edirdi. 1915-ci ildə Britaniya müstəmləkə hakimiyyətləri Məhəmməd Məsləhət Şurası yaratdılar. Şuraya islam dini və adət-ənənələri ilə bağlı məsələlərdə müstəmləkə hakimiyyətlərinə məsləhət vermək tapşırılmışdı.

1965-ci ildə Malayziyadan ayrılmış və yeni müstəqil olmuş Sinqapur Respublikasının konstitusiyasına malayların və müsəlman dininin xüsusi mövqeyi ilə bağlı iki müddəa - 152 və 153-cü maddələr daxil idi. 152-ci maddədə deyilir (Suzaina Kadir. Islam, state and society in Singapore, Inter-Asia Cultural Studies, 2014, 5:3, 357-371. p. 359):

*(1) Sinqapurda irqi və dini azlıqların maraqlarına daim qayğı göstərmək hökumətin məsuliyyəti olacaqdır.*

*(2) Hökumət Sinqapurun yerli xalqı olan malayların xüsusi mövqeyini tanıyacaq şəkildə öz funksiyalarını həyata keçirəcək və müvafiq olaraq, hökumətin öhdəliyi onu qorumaq, dəstəkləmək, inkişaf etdirmək və təşviq etməkdir.*

152-ci maddənin 2-ci bəndinə görə Sinqapur hökuməti missionerləri malay əhalisini islamdan başqa dinlərə təbliğ etməkdən çəkindirir. 153-cü maddədə isə deyilir (Charlene Tan. Islam and citizenship education in Singapore: Challenges and implications. Education, Citizenship and Social Justice, 2007, 2(1), 23-39. p. 26):

*Qanunverici orqan qanunla müsəlmanların dini işlərini tənzimləmək və müsəlman dini ilə bağlı məsələlərdə Prezidentə məsləhət vermək üçün Şuranın yaradılmasını təmin etməlidir.*

1966-cı ildə Sinqapur Parlamenti Müsəlman Hüququnun İdarə Edilməsi Aktını qəbul etdi. Qanun 1968-ci ildə qüvvəyə minib və üç əsas müsəlman qurumunun səlahiyyətlərini və yurisdiksiyasını müəyyən edib (Suzaina Kadir. Islam, state and society in Singapore, Inter-Asia Cultural Studies, 2014, 5:3, 357-371. p. 360):

- Sinqapur İslam Dini Şurası;
- Şəriə Məhkəməsi;
- Müsəlman Nikahlarının Qeydiyyatı.

Bu qurumlar Müsəlman İcmanın İnkişafı, eləcə də Gənclər və İdman Nazirliyinin tabeliyindədir. Bundan əlavə, Sinqapur İslam Dini Şurası kimi də tanınan Uqama İslam Sinqapur Məclisi Sinqapur müsəlman icmasının administrasiyasına və maraqlarına təmin olunmasına baxır. Məclisə məclisin prezidenti, Sinqapur müftisi və müsəlman işləri üzrə məsul nazir tərəfindən tövsiyə edilən digər şəxslərdən ibarət Şura başçılıq edir. Şura Sinqapur Prezidenti tərəfindən təyin edilir. 2009-cu ildən bəri şuranın baş ofisi Braddell Yolu boyunca yerləşən Sinqapur İslami Mərkəzində yerləşir.

Şəriə məhkəməsi isə daha qədimdir. 1880-ci ildə İngilis müstəmləkə hakimiyyətləri Sinqapurda müsəlmanların şəxsi hüququnun statusunu rəsmi olaraq tanıyan Məhəmməd Nikah Sərəncamını təqdim etdilər. 1958-ci ildə, 1957-ci il Müsəlman Sərəncamına uyğun olaraq, müsəlman nikahları və boşanma işlərinə dair mübahisələrə baxmaq və həll etmək səlahiyyətinə malik olan Şəriə Məhkəməsi yaradılmışdır.

Məhkəmə müəyyən etnik qrupların adət-ənənələrinə və ya müsəlman hüququna dair öz şərhlərinə əməl edərək, əvvəllər boşanma və miras məsələlərinə dair qərarlar vermiş bir sıra hökumət lisenziyası olan, lakin başqa şəkildə nəzarəti olmayan bir sıra qazıları (şəriət hakimləri funksiyasını icra edən axundlar) əvəz etdi.

Müasir dövrdə isə Şəriə Məhkəməsi Sinqapur Parlamenti Müsəlman Hüququnun İdarə Edilməsi Aktı tərəfindən müəyyən edilmiş mübahisələri dinləmək və müəyyən etmək səlahiyyəti və yurisdiksiyasına malik səlahiyyətli bir yurisdiksiya məhkəməsi kimi mövcud olmağa davam edir.

Müsəlman Nikahlarının Qeydiyyatı isə iki müsəlmandan ibarət cütlüklər arasında nikahları qeydə alan dövlət qurumudur. Qarışıq dinlərin nikahları Nikahların Qeydiyyatı şöbəsində qeydə alınır. Əvvəllər müsəlman nikahlarının, eləcə də boşanmaların qeydiyyatı Şəriə Məhkəməsi olan bir bölmə

altında aparılırdı (Charlene Tan. Islam and citizenship education in Singapore: Challenges and implications. Education, Citizenship and Social Justice, 2007, 2(1), 23-39. p. 30-32).

**Sinqapurun islam ölkələri ilə regional əlaqələri**

Malayziya regionun ən böyük müsəlman ölkələrindən biridir. Malayziya-Sinqapur əlaqələri dedikdə 1965-ci ildə Sinqapurun Malayziyadan ayrılmasından sonra fərqli iki ölkə olan Malayziya və Sinqapur arasında ikitərəfli xarici əlaqələrə nəzərdə tutulur. Sinqapurun Kuala Lumpurda səfirliyi və Co Xor Bahruda baş konsulluğu, Malayziyanın isə Sinqapurda səfirliyi var. Hər iki ölkə Birləşmiş Millətlər Təşkilatının və Cənub-Şərqi Asiya Ölkələri Assosiasiyasının tamhüquqlu üzvləridir. Bir sıra diplomatik problemlərə baxmayaraq, iki ölkə arasında əlaqələr yüksək səviyyədə qorunub saxlanılır (Donald E. Weatherbee. International Relations in Southeast Asia: The Struggle for Autonomy, London: Rowman & Littlefield Publishers, 2008. 348 pages. p. 23).

Sinqapur və Malayziya sıx ikitərəfli əlaqələrə malikdir və hər il iki ölkə arasında ikitərəfli danışıqlar üçün Sinqapur və Malayziya liderlərinin xüsusi mərasimi keçirilir. Malayziyanın Baş naziri 2018-ci ildə bu mərasimdə Sinqapurun 2018-ci ildə Cənub-Şərqi Asiya Ölkələri Assosiasiyasının sədri olaraq seçdiyi davamlılıq və innovasiya layihələrini təriflyərək Sinqapur və Kuala Lumpurun gələcəkdə smart şəhərlərini birləşdirilə biləcəyini söyləmişdir. Baş nazir həmçinin Malayziyanın Sinqapurun təşkilata sədrliyinə tam dəstəyini ifadə etmiş və rəqəmsal iqtisadiyyatın hər iki ölkənin üzərində birlikdə çalışa biləcəyi bir sahə olduğunu söyləmişdir.

2015-ci ildən bəri Sinqapur təxminən 28 milyard ABŞ dolları məbləğində ümumi idxal və ixracla Malayziyanın ən böyük ticarət tərəfdaşıdır. Sinqapurun isə ən böyük ticarət tərəfdaşı Çindir, ondan sonra müvafiq olaraq Honq Konq və Malayziya gəlir. Malayziyanın keçmiş baş naziri hər iki ölkənin tənzimləmə və elektron ticarəti təşviq edə biləcəyini, həmçinin elektron ödənişləri təşviq edə biləcəyini təklif etmişdir (Charles Chao Rong Phua. Towards Strategic Pragmatism in Foreign Policy: Cases of United States of America, China and Singapore. London: Routledge, 2021. 171 pages. p. 80).

Xüsusilə, Malayziyanın ən cənubundakı Cohor əyaləti Sinqapurla sıx ikitərəfli əlaqələrə malikdir. Hər iki ərazi bir-birinə bitişikdir və su və digər bu kimi təbii ehtiyatları bölüşür. Bundan əlavə, Cohor və Sinqapur İndoneziyanın Riau adaları ilə birlikdə SIJORI (xüsusi bir inkişaf layihəsidir) böyümə üçbucağını təşkil edir. Sinqapur ardıcıl olaraq cənub Cohorun çox hissəsini əhatə edən iqtisadi dəhliz olan İskəndər dəhlizi vasitəsilə Malayziyaya birbaşa xarici investisiyaların əsas mənbələrindən biri olmuşdur. Bu arada, Cohordan hər gün təxminən üç yüz min malayziyalı hər gün iş və ya təhsil üçün Sinqapura keçir.

İndoneziya-Sinqapur əlaqələri də islam əməkdaşlığı çərçivəsində kifayət qədər inkişaf etmişdir. 1945-ci ildə İndoneziya müstəqillik əldə etdikdən və 1965-ci ildə Sinqapur Malayziyadan ayrıldıqdan sonra hər iki ölkə 1966-cı ildə ikitərəfli diplomatik əlaqələrə başladı. Hər iki ölkə rəsmi diplomatik əlaqələri 1967-ci il avqustun 8-də Cənub-Şərqi Asiya Ölkələri Assosiasiyasının yaranmasından bir ay sonra, 7 sentyabr 1967-ci ildə qurub. İndoneziya və Sinqapur Assosiasiyanın beş qurucu üzvündən ikisidir. Hər iki ölkə həm də Qoşulmama Hərəkatının və APEC-in üzvüdür (Donald E. Weatherbee. International Relations in Southeast Asia: The Struggle for Autonomy, London: Rowman & Littlefield Publishers, 2008. 348 pages. p. 23).

Ötən illər ərzində İndoneziya və Sinqapur müxtəlif ölkələrdə sıx iqtisadi əməkdaşlığa və səhiyyə, müdafiə və ətraf mühit də daxil olmaqla bir sıra sektorlarda birgə fəaliyyətə əsaslanan yüksək səviyyəli səfərlərin müntəzəm mübadiləsini davam etdirirlər. Son on ildə Sinqapur ardıcıl olaraq hər il İndoneziyanın ən böyük xarici investoru olmuşdur.

2017-ci ildə İndoneziya Respublikası tərəfdən "RI" və Sinqapur tərəfdən "SING" sözlərinin birləşməsindən ibarət olan RISING50 kimi tanınan anım tədbirində diplomatik əlaqələrin qurulmasının 50 illiyi qeyd olunmuşdur. İndoneziya və Sinqapur arasında diplomatik əlaqələrin qızıl ildönümü bu tədbirdə qeyd olundu. Bu çərçivədə iqtisadiyyat sahəsində investisiya forumu keçirilib, təhsil və tədqiqat, tələbə mübadiləsi, ətraf mühit və enerji sahələrində əməkdaşlıq da daxil olmaqla doqquz Anlaşma Memorandumu imzalanıb.

Malakka Boğazının ən işlək gəmiçilik zolağında və dünyanın əsas mərkəzlərindən birində yerləşən Sinqapurla ticarət, həmçinin Sinqapur vasitəsilə ticarət İndoneziya üçün olduqca vacibdir. Çünki Sinqapur İndoneziya üçün dünyanın qalan hissəsi ilə ticarət əlaqələrini təmin edir. Əlbəttə ki, İndoneziya biznesi də Sinqapur üçün vacibdir. Ticarət və iqtisadi əlaqələr iki ölkənin beynəlxalq əlaqələri üçün əsas ümumi motivasiyadır, onların hər biri bir-birinin əsas ticarət tərəfdaşıdır.

İslam ölkəsi olan İndoneziya ilə Sinqapur arasında ticarətin həcmi 36 milyard Sinqapur dollarına (29,32 milyard ABŞ dolları) çatır. Sinqapur 142 layihədə cəmi 1,14 milyard ABŞ dolları ilə İndoneziyanın ən böyük xarici investorudur. İki ölkə arasında ticarət dövriyyəsi də 2010-cu ildə təxminən 68 milyard dollar təşkil edib. Eyni zamanda, İndoneziyanın Sinqapura qeyri-neft ixracı regionda ən yüksək göstəricidir ( Bilahari Kausikan and others. Singapore Is Not an Island: Views on Singapore Foreign Policy. Singapore: Straits Times Press, 2017. 465 pages. p. 110).

Sinqapur İndoneziya üçün əsas turizm mənbəyidir. Misal üçün, 2010-cu ildə 1,373,126 turist ilə ən böyük turizm mənbəyi rolunu oynamışdır. Eyni zamanda İndoneziya da Sinqaprurun ən böyük turizm mənbəyi rolunu oynayır və 2011-ci ildə 2,592,222 turist ilə Sinqapur üçün əsas turizm mənbəyi olmuşdur. Biznes əlaqələri ilə yanaşı, indoneziyalı qonaqlar üçün əsasən alış-veriş, şəhər turları və tematik parkları, zooparkları, muzeyləri və bağları olan ada kurortları Sinqapuru cəlbedici edir (Bilahari Kausikan and others. Singapore Is Not an Island: Views on Singapore Foreign Policy. Singapore: Straits Times Press, 2017. 465 pages. p. 111).

Sinqapur ilə yaxın münasibətlərə malik islam ölkələrindən biri Bruneydir. Bruney-Sinqapur münasibətləri çox inkişaf edib və bu iki ölkə geniş müdafiə əməkdaşlığı çərçivəsində sıx dostluq əlaqələri saxlayır. Sinqapur Silahlı Qüvvələri ikili anlaşma çərçivəsində bir çox Bruney hərbçisinə təlim keçib. Bunun müqabilində Bruney Sinqapur ordusuna öz ərazisindən təlim üçün istifadə etməyə icazə verir. Bruney və Sinqapur 1994-cü ildə Kral Bruney Hərbi Hava Qüvvələri ilə Sinqapur Respublikası Hərbi Hava Qüvvələri arasında birgə təlimləri özündə əks etdirən Hava Mühafizəsi təliminə başlamışdır (Donald E. Weatherbee. International Relations in Southeast Asia: The Struggle for Autonomy, London: Rowman & Littlefield Publishers, 2008. 348 pages. p. 23).

İki ölkə arasında rəsmi əlaqələr 1984-cü ildə qurulub. Hər iki ölkə Cənub-Şərqi Asiya Ölkələri Assosiasiyasının üzvüdür. 2012-ci ildə Bruney Sultanı Əlahəzrət Hassanal Bolkiah 3-cü Sinqapur Aviasiya Sərgisində iştirak etmiş və həmin il ölkənin hazırkı və keçmiş baş nazirlər ilə görüşmüşdür. İki ölkə arasında bir neçə anlaşma memorandumu imzalanıb və ölkələr arasında həm Bruney dolları, həm də Sinqapur dolları əskinaslarını və sikkələrini istənilən ölkədə qanuni ödəniş vasitəsi edən Valyuta Mübadiləsi Müqaviləsi mövcuddur (Michael D. Barr. Singapore: A Modern History. Kansas: I.B. Tauris, 2019. 312 pages. p. 110).

Bruney kimi Banqladeş də bir islam ölkəsi olaraq Sinqapur üçün əhəmiyyət kəsb edir. Sinqapur Banqladeş müstəqillik əldə etdikdən sonra 1972-ci ilin fevralında onu tanıyıb. 2016-cı il yanvarın 20-də Sinqapur terror aktları planlaşdırdıqları üçün Banqladeşdən olan 27 inşaat işçisini deportasiya edib. Qrup Sinqapurda ilk terror qruplaşması adlandırılıb. Banqladeş onlardan 14-nə qarşı terror işi qaldırıb. 2016-cı il mayın 3-də Banqladeşdən daha səkkiz işçi İslam Dövləti terror qruplaşması ilə əlaqəyə görə deportasiya edilib.

2016-cı il avqustun 9-da Banqladeş və Sinqapur birgə elektrik stansiyasının tikintisinə dair saziş imzalayıblar. Müdafiə və Xarici İşlər üzrə yüksək vəzifəli dövlət naziri Maliki Osman 24-26 oktyabr 2016-cı il tarixlərində Banqladeşə səfər edib. O, terrorizmlə mübarizədə əlaqələrin və əməkdaşlığın yaxşılaşdırılmasından danışıb. Ümumilikdə Sinqapur Banqladeşdən gələn işçi qüvvəsi üçün ən böyük bazarlardan biridir (Bilahari Kausikan and others. Singapore Is Not an Island: Views on Singapore Foreign Policy. Singapore: Straits Times Press, 2017. 465 pages. p. 77).

**NƏTICƏ**

Müstəqilliyinin ilk illərində yaxınlıqdakı müsəlman ölkələr ilə əlaqələr quran Sinqapur zaman keçdikcə və beynəlxalq əlaqələri genişləndikcə Afrika və Yaxın Şərqdəki islam ölkələri ilə də yaxın əlaqələr qurmuşdur. Yaxın zamanlarda şəhər-dövlətin İslam Əməkdaşlıq Təşkilatı ilə də birbaşa yaxın əlaqələr quracağı gözlənilir.

Beləliklə ümumiləşdirərək söyləyə bilərik ki, Sinqapurun islam ölkələri ilə münasibətləri çox genişdir və əksər islam ölkələri ilə əməkdaşlıq əlaqələrinə malikdir. Misir, Malayziya, Banqladeş, Pakistan, Türkiyə, Özbəkistan, İndoneziya, Qətər kimi ölkələr Sinqapurun sıx əməkdaşlıq etdiyi müsəlman ölkələr sırasındadır. Sinqapurun bu ölkələrlə iqtisadi-siyasi, hərbi-siyasi, mədəni-elmi, iqtisadi-ticarət və s. kimi sahələrdə çox geniş və uzunmüddətli əlaqələri vardır. Bu da öz növbəsində Sinqapurun islam dünyasına verdiyi dəyəri və islam ölkələri ilə əmkdaşlıq arzusunu göstərir. Bu baxımdan, bir islam ölkəsi olaraq Azərbaycan da Sinqapurun maraq dairəsindədir.

**İstifadə olunmuş ədəbiyyat siyahısı**

1. Barr, M.D. Singapore: A Modern History. Kansas: I.B. Tauris, 2019. 312 pages.
2. Kadir, S. Islam, state and society in Singapore, Inter-Asia Cultural Studies, 2014, 5:3, 357-371.
3. Kausikan, B. and others. Singapore Is Not an Island: Views on Singapore Foreign Policy. Singapore: Straits Times Press, 2017. 465 pages.
4. Tan, C. Islam and citizenship education in Singapore: Challenges and implications. Education, Citizenship and Social Justice, 2007, 2(1), 23-39.
5. Weatherbee, D.E. International Relations in Southeast Asia: The Struggle for Autonomy, London: Rowman & Littlefield Publishers, 2008. 348 pages.

# ABŞ XARICI SIYASƏT MƏKTƏBINDƏ CEFFERSON IDEA VƏ PRINSIPLƏRI

**NIGAR ƏSGƏROVA**
AZƏRBAYCAN DİLLƏR UNİVERSİTETİ
Beynəlxaql münasibətlər və regionşünaslıq
*asgarova.n@gmail.com*
BAKI, AZƏRBAYCAN

**XÜLASƏ**

Dünyanın fövqəlgüc dövləti olan ABŞ-nin xarici siyasəti və onun tarixi təkamülünü öyrənmək tarix və nisbətən gənc olan beynəlxalq münasibətlər elmi üçün hər zaman aktual bir mövzu olmuşdur. ABŞ xarici siyasət ənənələrini anlamaq üçün ABŞ-nin respublika dövründən yəni XVIII əsrdən başlayaraq onun qurucu atalarının xarici siyasətə verdikləri töhvələri araşdırmaq lazımdır.

ABŞ hər zaman özünəməxsus mövqeyi ilə yumşaq güc alətlərindən səmərəli istifadə edərək klassik hegemon güc olmaqdansa, dünyaya liderlik edən bir güc olmağı hədəfləmişdi və biz bunu xarici siyasətin tarixi təkamülündə aydın görürük. Tarixə və Amerika təcrübəsinə söykənən bu ənənələr müasir dövrdə Amerikanın qlobal çağırışlarına cavab verir və dəyişən dünyanın bütün elementlərini nəzərə alır. ABŞ xarici siyasət ənənələri birbaşa olaraq ABŞ-nin dörd qurucu atası- Aleksandr Hamilton, Tomas Cefferson, Endryü Cekson və Vudro Vilsonun adı ilə bağlıdır. Məhz bu dörd məktəb və onların davamçıları arasında olan rəqabət bu gün ABŞ xarici siyasətini formalaşdırmışdır.

Təqdim olunan məqalədə əsas məqsəd ABŞ xarici siyasət ənənələrinin formalaşmasında Cefferson idea və prinsiplərini aydınlaşdırmaq, Hamiltonla girdiyi sonsuz rəqabətini müqayisəli təhlil əsasında səbəbini anlamaq, onun demokratiya, individualiz və idaealizmə dair düşüncələrini təhlil etmək, xarici siyasət istiqamətlərini müəyyənləşdirməkdən ibarətdir.

ABŞ xarici siyasət ənənələrində bu gün də əsas götürülən və kifayət qədər davamçısı olan Cefferson idea və prinsiplərinin inkişafı digər rəqib prinsiplərlə birgə ikipartiyalı sistemin əsasının qoyulmasına və ABŞ siyasi sisteminin formalaşmasına səbəb olmuşdur.

**AÇAR SÖZLƏR: Xarici siyasət, Ceffersionizm, Respublika, demokratiya.**
**KEY WORDS: Foreign policy, Jeffersionism, Republic, democracy**

## GİRİŞ

İdarəetmə üsuluna görə dünyanın ən gənc respublikalarından biri olmasına baxmayaraq, bü gün məhz ABŞ dünyanın fövqəlgücü kimi beynəlxalq münasibətlər sistemində mərkəz mövqeyə malikdir. Fövqəlgüc dövlət olmağını şərtləndirən amillər, ABŞ-nin yürütdüyü xarici siyasət və bu siyasətin

əsrlər ərzində formalaşması nəzəri perspektivləri və konsepsiyaları ilə birbaşa əlaqəlidir. ABŞ xarici siyasətinin mərkəzində duran konspesiyalardan olan güc, təhlükəsizlik, diplomatiya və beynəlxalq əməkdaşlıq əsrlər ərzində fərqli təcrübələr əsasında formalaşmış və bu konsepsiyaların tətbiqi digər dövlətlər üçün də bu və ya digər formada nümunə olmuşdur.

Nəzəriyyələr və müəyyən çərçivələr bizə xarici siyasət kimi mürəkkəb bir şəraitdə idaretmə mühitini anlamağa imkan verir. Xarici siyasətə fərqli yanaşmanı özündə etiva edən və bu yolda nəyi necə etməli olduğumuzu bizə diktə edən bir çox düşüncə, fikir məktəbləri mövcuddur. Bu yanaşmalar insan təbiətini necə qəbul etdikləri və onun haqqında nə düşündükləri, eləcə də ABŞ xarici siyasətinə neçə ölkənin cəlb edilməsini və xarici siyasətin məğzini nə təşkil etməsini aydınlaşdırmaq baxımından bir birindən fərqlənir. Yanaşmalar bizə ABŞ-nin dünyada xarici siyasətlə bağlı hansı çağırışları gözlədiyini də müəyyən etməyə yardım edir.

ABŞ-nin xarici siyasəti yumşaq güclərdən istifadə edərək əsrlər ərzində dünya liderliyi uğrunda mübarizə üzərində qurulmuşdur. ABŞ xarici siyasəti, onun təhlili və inkişaf dinamikası dünyanın aparıcı elm, strateji təhlil və fərqli beyin mərkəzlərinin hər zaman diqqət mərkəzində olmuş və olacaqdır. ABŞ-nin xarici siyasətini anlamaq üçün bu siyasətin tarixi ənənələrini bilmək və araşdırma aparmaq tarix və beynəlxalq münasibətlər elminin inkişafı baxımından zəruriyyət və aktuallıq kəsb etməkdədir.

Yuxarıda qeyd edildiyi kimi ABŞ xarici siyasətini daha yaxşı anlamaq üçün ABŞ-də Respublika dövründən başlayaraq meydana çıxan fərqli fikir məktəbləri təhlil etmək lazımdır. ABŞ-də xarici siyasət ənənələri bağlı dərin araşdırma aparan professor Valter Rassel Mid özünün "Xüsusi qüvvə: ABŞ xarici siyasəti dünyanı necə dəyişdi" adlı əsərində dörd fikir məktəbi haqqında məlumat verir. Bu ənənələrə Aleksandr Hamiltonun inandığı realist, konservativ beynəlmiləçiliyə inanan Tomas Cefferson, Endryü Ceksonun inandığı milliyyətçilik və liberal beynəlmiləlçiliyə inan Vudro Vilson məktəbləri daxildir. Hamiltonun düşüncəsi xarici ticarəti və iqtisadiyyatı inkişaf etdirmək üçün beynəlxalq əlaqələri dəstəkləmək olduğu halda, Cefferson daxili sülhü və demokratiyanı inkişaf etdirmək niyyətində idi, istənilən iri miqyaslı beynəlxalq layihələrə şübhə ilə yanaşırdı. [10., s.99-110] Müəyyən zaman keçməsinə baxmayaraq, tarixə və Amerika təcrübəsinə söykənən bu ənənələr müasir dövrdə də Amerikanın qlobal çağırışlarına cavab verir və dəyişən dünyanın bütün elementlərini nəzərə alır.

Ümumilikdə, məqalədə qarşıya qoyulan məsələləri tədqiq edərkən mövcud fakt və hadisələrin müqayisəli təhlilinə üstünlük verilmiş, nəzəri yanaşma metodu əsas götürülərək tarixçilik prinsipinə əməl olunmuşdur.

Təqdim olunan məqalə ABŞ xarici siyasət ənənələrinin formalaşmasında önəmli yer tutan fikir məktəblərinin birinin sahibi Tomas Ceffersonun ABŞ xarisi siyasətinə gətirdiyi və bu gün də müəyyən davamçı kütləsinə malik idea və prinsiplərindən bəhs edir.

**TƏDQIQAT METODU**

**CEFFERSON İDEA VƏ PRİNSİPLƏRİ**

ABŞ xarici siyasət ənənələri sırasında Aleksanr Hamilton fikir məktəbi ilə eyni zamanda yaranmış və ona tamamilə əks olan Ceffersonian xarici siyasət məktəbi də mövcuddur. Bu dominant siyasi hərəkat 1790-cı illərlə 1820-ci illər arasında hakim olmuşdu.

Cefersonun idealarının əsasını demokratiya təşkil edirdi. O, bu inancını Müstəqillik Bəyənnaməsində xüsusi şəkildə ifadə edirdi ki, insanlar məhz insan olduqları üçün onların əlindən alına bilinməyən hüquqlara sahibdirlər. Var-dövlət, təhsil və həyatda tutduğun mövqenin bu hüquqlara hec bir aidiyyatı yoxdur. Cefferson həqiqi meritokratiyaya üstünlük verirdi, yəni cəmiyyətdə yuxarıya doğru, xüsusən də liderlik vəzifələrinə doğru sosial hərəkətlilik təkcə imtiyazla doğulanların deyil, həqiqətən də yaxşı və bacarıqlı olanların əlinə keçməlidir. Əsl istedadlar ailə adları və ya titullarından daha çöx önəmli olmadı və önə keçməlidir. Yuxarıda qeyd olunan dəyərlərin fundamental komponentini məhz vətəndaşların siyasi iştirakı və fərqində olmaları tutur və bu da uğurlu demokratik respublikaya aparan ən gözəl yoldur. Əgər insanlar fəal şəkildə siyasətə cəlb olunmasalar, bu demokratiyanın az əhəmiyyət kəsb etməsi deməkdir. Ceffersonun təqdim etdiyi üç dəyər-eqalitarzm (bərabərlik), meritokrasiya (layiq olmaq) və ixtisaslaşmış liderliyə olan ehtiyac bir yerdə hər kəs üçün təhsil fikrini formalaşdırır [1., s.32].

Cefferson Con Adamsa yazdığı məktubda təsdiq edir ki, hətta aristokratiyanın belə iki növü vardır və onlardan yalnız biri hakimiyyəti idarə etməyə uyğundur. Cefferson birinci növü belə təsvir

edir: "...insanlar arasında təbii aristokratiya. Bunun üçün əsas baza ləyaqət və 3 istedaddan ibarətdir". Ceffersona görə məhz bu aristokratiya hakimiyyəti idarə edə bilər. İkinci növ isə "saxta aristokratiyadır. Əsasını var-dövlət və irs təşkil edir. Burada heç bir ləyaqət və istedad yoxdur" [4.,s. 534-539].

Ceffersonian siyasi baxışlarının tərəfdarları ABŞ Federalizminə qarşı idi, onlar ABŞ-ni Respublika idarəetmə formasında görmək istəyirdilər. Onlar tacir, bankir və fabrik sahiblərinə qarşı idilər, fabrik işçilərinə güvənmir, kəskin şəkildə Vestminister sisteminə qarşı çıxır və onun tərəfdarlarını hər zaman diqqətdə saxlayırdılar.

Hamilton ənənəsinin davamçıları insan təbiəti ilə bağlı fikirlərdə tərəddüdə malik olsalar da, ticarət təsissatlarına aid olan istənilən mövzuda çox optimist idilər, Ceffersonçular isə tam əks mövqe nümayiş etdirirdilər. Onlar fərdlərə hörmətlə yanaşır və ticari təsisatlardan qorxurdular və düşünürdülər ki, onlar insan ləyaqətini korlayacaqlar. Bu səbəbdən digər xalqlarla sıx əlaqələr qurmağa can atmaq lazım deyil, daha yaxşı olardı ki, gurultulu xarici siyasət formalaşdıraraq, özünü riskə atmayasan, evdə mükəmməl demokratiya qurmaq üçün cəhd edəsən. Onların düşmənləri Ceffersoniançıları təcridçi daha çox milliyyətçi adlandırırdılar. Lakin hər halda Ceffersonian ənənəsinin tərəfdarları yerli maraqları beynəlxalq maraqlardan üstün tuturdular [3].

Ceffersonun xarici siyasətinin əsas məqsədi heç də onlara əks olan qüvvələrin iddia etdiyi kimi təcrid olmaq deyil, mümkün olan ən az risk və xərclə dünya siyasəti ilə məşğul olmaq idi. "Minimalist realizmi" müdafiə edən Ceffersonian tərəfdarları xarici siyasəti bir fürsətdən daha çox, sadəcə təhlükə hesab edirdilər. Onlar federal hökuməti "şər" hesab edir və hər hansı bir xarici siyasət yürütməməyi arzulayırdılar. Onlar xarici siyasətin inkişafında iki risk görüdülər:

- Birincisi, xarici siyasətin bədnam təhlükəsi hesab edilən xarici işğal. Xarici dövlətlər ABŞ siyasətçilərinə rüşvət verir, eyni zamanda ABŞ vətəndaşlarının xaricdəki imtiyazlarını pozurdular.
- İkincisi, ABŞ-ni qorumaq üçün aparılan siyasətlər bumeranqa çevrilə və onların demokratik nizamını poza bilər.

Ceffersonian tərəfdarlarının fikrincə, amerikalıların əsas vəzifəsi Ceffersonun "Azadlıq imperiyasi" adlandırdığı məhfumu dünyaya yaymaqdır. "Azadlıq imperiyası" Tomas Cefferson tərəfindən inkişaf etdirilən dünyaya azadlıq yaymaq məsuliyyətini özündə etiva edən bir mövzudur. Ceffersona görə bu missiyanın əsasını dünyaya müdaxilə etmək siyasətini əsas götürməkdənsə, Şimali Amerikanın qərb hissələrinə daha çox irəliləmək təşkil etməli idi [7., s. 148].

Cefferson siyasi ənənəsinin tərəfdarları üçün monarxiya, aristokratiya, korrupsiya ənənələri və biznes metodları ilə Böyük Britaniya çox böyük bir təhlükə idi. Onlar düşünürdülər ki, 1794-cü ildə iki ölkə arasında imzalanmış dostluq, ticarət və naviqasiya sahəsində əməkşdalığı özündə etiva edən Cey müqaviləsi Britaniyaya fayda gətirəcək, Amerika dəyərlərinə isə real hədəyə çevriləcək [8., s.15].

Ceffersoniya tərəfdarları müharibəni ABŞ-nin azadlığına təhlükə kimi görürdülər. Onların fikrincə, müharibədə qalib gəlmək üçün güclü silahlı qüvvələr lazımdır, lakin onlar azadlıq üçün də öldürücü ola bilər. Müharibələr hər zaman iqtisadi sərvətlərin itirilməsi və hökumətlərə təzyiq göstərən borcların artması ilə nəticələnir. Ceffersoniya davamçıları hətta təhriklərdən yayınmağın və daha çox münaqişəyə girməyin mümkün olmadığı nöqtəyə qədər müharibələrə qarşı çıxırdılar, daha yaxşı alternativ olaraq "iqtisadi sanksiyalara" üstünlük verirdilər.

Fransa inqilabına gəldikdə isə Cefferson düşünürdü ki, respublikaçılıq, azadlıq, bərabərlik və qardaşlıq prinsipləri Fransanı Avropa xalqları arasında ən mükəmməli edir. ABŞ-nin siyasi fəlsəfə tarixi üzrə tədqiqatçısı Maykl Hartdın fikrincə "Ceffersonun Fransa inqilabına dəstəyəyi çox zaman İngiltərə sevdalılarının monarxiyasına qarşı Respublika idealarını qorumağa xidmət edirdi. Digər tərəfdən isə Napaleon özü respublikaçılıq ideallarına əks idi və bu heç bir halda dəstəklənə bilməzdi [6., s. 63].

Ceffersoniyalılar müharibələrə və xarici müdaxilələrə qarşı olduqları üçün hərbi qüvvələri kiçik, müdafiə və ya diplomatik xərcləri isə aşağı səviyyədə saxlamaq istəyirdilər. Bundan başqa, onlar ABŞ-nin hərbi və diplomatik qurumlarına keyfiyyət və kəmiyyət məhdudiyyətləri qoyurdular. Belə ki, hərbi və dövlət departamentləri ciddi yoxlama və Konqres qaydalarına məruz qalırdı.

Tərəfdarların böyük əksəriyyəti inadla iddia edirdilər ki, çox xərc tələb edən dəniz donanmasının saxlanması məqbul deyildi, onun əvəzinə ucuz başa gələn yerli silahlı qayıqlar, üzən bataryalar, səyyar sahil bataryaları və dənizsahili istehkamlar təhlükəsizliyi daha yaxşı təmin edə bilər [ 5., s. 153-184]

Onlar həmçinin humanitar və ticari tələbləri özündə etiva edən qlobal öhdəliklər üçün sülh zamanı ordunun və "dəniz qüvvələrinin" saxlanılmasına qarşı idilər. Bunun əvəzinə sərhəd təhlükəsizliyi və müdafiəsinin möhkəmlənməsi daha məqbul hesab edilirdi. Daimi orduya alternativ olaraq, Milli Qvardiya Birlikləri formasında hərbi qrupların saxlanılmasının tərəfdarları idilər.

**NƏTİCƏ**

Ceffersonun da xarici siyasət istiqamətlərini aşağıdakı formada qruplaşdırmaq aparılmış tədqiqatı daha ayın anlamağa kömək edir:

- Hakimiyyətin mənbəyi xalqdır, lakin hakimiyyət savadlı və istedadlı insanlar tərəfindən idarə olunmalıdır;
- Yalnız siyasi həyatda demokratiyanın rolu danılmazdır;
- Kənd təsərrüfatının inkişafı labüddür;
- Respublika idarəetmə quruluşunda məhdudlaşdırılmış hakimiyyət tərəfdarı idi.

1796-cı ildə Corc Vaşinqton Vida nitqində istefaya gedən prezident kimi xəbərdarlıq edirdi ki, siyasi fraksiyaların yaranması "intiqam hissi ilə daha da kəskinləşir" və bu əlbət ki, gec və ya tez "formal və daimi despotizmə" səbəb olacaq. Vaşinqtonun xəbərdaredici sözlərinə baxmayaraq, onun iki ən yaxın məsləhətçiləri olan Tomas Cefferson və Aleksandr Hamiltonun yaratdığı fraksiya ABŞ-də bu gün mövcud olan ikipartiyalı sistemin formalaşmasına gətirib çıxartmışdı. Ceyms Madison və Con Adams da həmçinin siyasi partiyaların formalaşmasına töhvə vermişdilər, lakin Hamilton və Cefferson sonraki siyasi mənzərəni formalaşdıran hərəkatın öncülləri idilər [ 2., s. 276].

Hər ikisinin Amerika İnqilabi müharibəsində fəal iştirakı və ABŞ-nin əsasının qoyulmasında oynadıqları rol bərabər olsa da, Cefferson ilk dövlət katibi və Hamilton isə Xəzinə katibi seçilməyənə qədər bir araya gəlib işləməmişdilər. İlk illərdə bu iki şəxs xalqın gələcək yolu ilə bağlı fikir ayrılıqlarına sahib idilər. Cefferson inanırdı ki, Amerikanın gələcək uğurunu kənd təsərrüfatı ənənlərinin inkişafındadır. Hamiltonun iqtisadi planı isə istehsalın və ticarətin təşviqi ilə bağlı idi.

Hamilton xalqın iradəsinə etibar etmirdi və inanırdı ki, uğurlu kurs aparmaq üçün federal hökumət böyük səlahiyyətlərə malik olmalı idi. Cefferson isə hakimiyyətin mənbəyini xalqda görürdü. Böyük ehtimal ki, onların fərqli fikirlərə sahib olması Vaşinqtona əsas verir ki, onların hər ikisini özünün ən yaxın məsləhətçi seçsin.

Xalq üçün Hamiltonun düşündüyü iqtisadi plan İngiltərədəki kimi milli bankın təsis edilməsinə, ştat borclarını federal hökumət borcları ilə birləşdirməsinə, Amerikada fabrikləri qorumaq üçün tarif və hökumət subsidiyalarına səbəb oldu.

Bütün bu tədbirlər ştatların hesabına federal hökumətin gücünü genişləndirirdi. Cefferson və onun siyasi tərəfdarları bu islahatlara qarşı çıxırdılar. Ceffersonun tərəfdarları qorxurdular ki, Milli Bank ABŞ-də daha çox İngilis təsirini təmsil edər və iddia edirdilər ki, Konstitusiya Konqresə Milli Bank təsis etmək səlahiyyəti vermədiyi üçün bu yolverilməzdir. Fabriklərin inkişafının artıq təsis edilmiş kənd təsərrüfatı özüllərində daha çox fayda gətirəcəyinə inanmırdılar.

Vaşinqton adminstrasiyası işə başlayanda Federalist və Anti-Federalist kimi tanınan iki qrup hələ də partiya formalaşdırmamışdı. Lakin xalqın müqəddaratı ilə bağlı olan fikir ayrılığı siyasi birlik ümidlərini kəsirdi. 1792-ci ilin may ayında Cefferson Vaşinqtona Hamiltonun siyasəti ilə bağlı qorxularını bildirir və onun tərəfdarlarını Konqresdə "korrupsioner eskadria" adlandırdı. O qeyd edirdi ki, İngiltərədən ilhamlanaraq, Hamilton Konstitusional Respublika quruluşundan monarxiya idaretmə quruluşuna keçəçək [9].

Digər siyasi məktəblər kimi Ceffersonian xarici siyasət məktəbləri illər ərzində fərqli insanlar tərəfindən tənqidlərə məruz qalmışdı. Lakin şübhəsiz ki, digər siyasi fikir məktəbləri kimi Cefferson idea və prinsipləri də ABŞ xarici siyasətinin formalaşmasında misilsiz xidmətləri olmuşdur.

**ƏDƏBIYYAT SIYAHISI**

6. Addis Cameron. (2003). Jefferson's Vision for Education, 1760-1845. New York: Peter Lang Publishing, 254 s.
7. Darren Staloff. (2007). Hamilton, Adams, Jefferson: The Politics of Enlightenment and the American Founding. New York: Hill and Wang 432 s.
8. Henry William Brands. The Four schoolmasters. The National interests. Winter 2001/02 (No. 66) s. 143-148. https://ciaotest.cc.columbia.edu/olj/ni/ni_01brh01.html)
9. Jefferson Thomas. (1975). Letter to John Adams. In The Portable Thomas Jefferson, ed. Merrill D Peterson, 640 s.
10. Julia H. Macleod. Huntington Library Quarterly. University of Pennsylvania Press Vol. 8, No. 2 Feb., 1945. 153-184 s.
11. *Michael Hardt*. "*Jefferson and Democracy*" in *American Quarterly 59.1* (March *2007*): *41-78*.
12. Robert W. Tucker and David C. Hendrickson. (1990). Empire of Liberty. The Statecraft of Thomas Jefferson. Oxford University Press; First Edition. 384 s.
13. The Jay Treaty Debate, Public Opinion, and the Evolution of Early American Political Culture. (2006).University of Massachusetts Press. 267s. s.15
14. Thomas Jefferson letter to George Washington may 23, 1792 Philadelphia may.23.1792. https://dokumen.pub/jefferson-vs-hamilton-confrontations-that-shaped-a-nation-0312085850-9780312085858.html.-15
15. Walter Russell Mead. (2002) Special Providence. American Foreign Policy and How It Changed the World. Routledge; First Edition 400 s. s. 99-110

# PERFORMANS QİYMƏTLƏNDİRMƏSİNİN METODLARI

**Aqşin Eminov**
Bakı Mühəndislik Universiteti
Dövlət strukturlarında menecment, magistr
*aeminov1@std.beu.edu.az*
BAKI, AZƏRBAYCAN

**XÜLASƏ**

Dövlət idarəçiliyinin uğurunda dövlət işçilərinin fərdi iş performansları mühüm paya malikdir. Lakin müəssisələrdə fərdi fəaliyyətə təsir edən amillər çox olduğundan və onların qarşılıqlı əlaqəsi mürəkkəb olduğundan, bu amillərin ədədi ifadəsi çox vacib və çətindir. Tədqiqatın məqsədi dövlət idarəçiliyində, xüsusilə dövlət qulluqçularının fərdi iş performansını hansı metodlardan istifadə olunaraq həyata keçirildiyinin araşdırlmasıdır.

Dövlət orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə struktur bölmələrinin fəaliyyətinin qiymətləndirilməsi sistemi formalaşdırılmalı, qiymətləndirmənin nəticələri həmin bölmələrin rəhbərlərinin və əməkdaşlarının fəaliyyətinin qiymətləndirilməsi nəticələri ilə müqayisə edilməli və bu yolla qiymətləndirmənin obyektivliyinin və peşəkarlığının təmin edilməsi mexanizmləri yaradılmalıdır. Dövlət qulluqçularının fəaliyyətinin qiymətləndirilməsinin əhəmiyyətini artırmaq məqsədilə qiymətləndirmə nəticələrinin əməkhaqqı, qulluqda yüksəliş, rotasiya, əlavə təhsil və dövlət qulluğunun digər elementləri ilə əlaqələndirilməsi həyata keçirilməlidir. Dövlət qulluqçularının fəaliyyətinin qiymətləndirilməsi zamanı müasir metodlardan geniş istifadə edilməli, qiymətləndirməni həyata keçirən şəxslərin bu sahədə bilik və bacarıqlarının artırılması üçün mütəmadi təlimlər təşkil edilməlidir.

**AÇAR SÖZLƏR: Dövlət qulluğu, performans qiymətləndirməsi, Qiymətləndirmənin metodları, qiymətləndirilmənin nəticələri, müasir metodlar.**

**KEYWORDS: Public service, performance evaluation, Evaluation methods, evaluation results, modern methods.**

## GIRIŞ

Hər bir ölkənin dövlət məmurlarının fəaliyyətinin qiymətləndirilməsi fərqlidir və standart yanaşma yoxdur. Bununla belə, bir çox ölkələrdə dövlət məmurlarının fəaliyyətini onların vəzifə öhdəlikləri, nailiyyətləri və davranışları kimi müxtəlif amillər əsasında qiymətləndirmək üçün sistemlər yaradılmışdır.

Bəzi ölkələrdə qiymətləndirmə prosesi mərkəzləşdirilmiş qaydada idarə olunur və dövlət xidmətlərinin idarə edilməsinə cavabdeh olan dövlət qurumu tərəfindən həyata keçirilir. Digər ölkələrdə qiymətləndirmə müvafiq nazirliklər və ya idarələr tərəfindən aparıla bilər. Bəzi ölkələr həm mərkəzi, həm də şöbə əsaslı qiymətləndirmələrdən istifadə edirlər.

Dövlət məmurlarının fəaliyyətinin qiymətləndirilməsi yazılı qiymətləndirmə, özünü qiymətləndirmə, həmyaşıdların qiymətləndirilməsi və yüksək səviyyəli menecerin qiymətləndirilməsi kimi müxtəlif üsullarla həyata keçirilə bilər. Bəzi hallarda fəaliyyətin qiymətləndirilməsi həm də dövlət məmurunun bilik, bacarıq və bacarıqlarını, onların peşəkar standartlara və etik qaydalara uyğunluğunu qiymətləndirə bilər.

Bir çox ölkələrdə dövlət qulluqçuları üçün əmək haqqı artımları, yüksəlişlər və ya digər stimulları müəyyən etmək üçün fəaliyyətin qiymətləndirilməsi nəticələrindən istifadə edilir. Bəzi hallarda zəif performans intizam tənbehi və ya işin dayandırılması ilə nəticələnə bilər.

Bütövlükdə, dövlət məmurlarının fəaliyyətinin qiymətləndirilməsi dövlət qurumlarının səmərəli fəaliyyətini və keyfiyyətli dövlət xidmətlərinin göstərilməsini təmin etmək üçün mühüm komponentdir.

Müasir müəssisələr gərgin rəqabət mühitində fəaliyyətlərini davam etdirmək, rəqabət üstünlüyü əldə etmək və bazar payını artırmaq üçün təşkilati cəhətdən böyüməli və inkişaf etməlidirlər. Buna görə də rəqabətin getdikcə şiddətləndiyi və qloballaşmanın sürətlə yayıldığı bir mühitdə fəaliyyətin qiymətləndirilməsinin əhəmiyyəti günü-gündən artır.

Müasir rəqabət mühitində bir çox təşkilatlar təşkilata ixtisaslı işçiləri cəlb etmək, iş məmnunluğunu və məhsuldarlığı artırmaq üçün fəaliyyətin qiymətləndirilməsini strateji vasitə kimi istifadə edir və bir çox idarəetmə qərarları üçün qiymətləndirmədən əsas götürür.

İşçi işə götürüldükdən, yerləşdirildikdən və müəyyən bir işə öyrədildikdən sonra; Müvəffəqiyyəti qiymətləndirmək üçün meyarları bilmək hüququna malikdir. İşçinin rəhbəri bu məsələ ilə bağlı onu məlumatlandırmağa cavabdehdir. Tərəqqi və inkişaf əksər işçilər üçün vacibdir. İşçilər performanslarını yaxşılaşdırmaq və özlərini daha yüksək vəzifələrə hazırlamaq üçün nə edə biləcəklərini bilmək istəyirlər. Bu vəziyyət fərdi nöqteyi-nəzərdən fəaliyyətin qiymətləndirilməsinin zəruriliyini açıq şəkildə nümayiş etdirir.

“Performansın qiymətləndirilməsi təşkilata işçilərin fəaliyyətini idarə etmək və yaxşılaşdırmaqda, vaxtında və düzgün kadr qərarları qəbul etməkdə və şirkətin xidmət və məhsulunun ümumi keyfiyyətini yaxşılaşdırmaqda getdikcə daha vacib vasitəyə çevrilmişdir.” (4. səh 3-5)

Ümumilikdə 2020-ci il üzrə mərkəzi icra hakimiyyəti orqanları və onlara bərabər tutulan orqanlar, yerli icra hakimiyyəti orqanları və məhkəmələr üzrə inzibati vəzifələrin üçüncü-yeddinci təsnifatlarına uyğun olan inzibati vəzifə tutan 11261 dövlət qulluqçusunun xidməti fəaliyyəti qiymətləndirilmiş, onlardan 2228-nin fəaliyyəti əla, 6603-nün fəaliyyəti yaxşı, 2395-nin fəaliyyəti qənaətbəxş, 35-nin fəaliyyəti isə qeyri-qənaətbəxş qiymətləndirilmişdir. Xidməti fəaliyyətin qiymətləndirilməsi üzrə aşağıdakı cədvəldə daha geniş məlumat verilmişdir.




Xidməti fəaliyyətin qiymətləndirilməsinin nəticəsinə uyğun olaraq 63 dövlət qulluqçusu rəhbər vəzifələrin tutulması məqsədilə ehtiyat kadrlar siyahısına daxil edilmiş, 11 dövlət qulluqçusuna vəzifə maaşının 1 misli, 6 dövlət qulluqçusuna qiymətli hədiyyələr, 6 dövlət qulluqçusuna isə növbəti ixtisas dərəcəsi verilməsi üçün müvafiq təqdimat verilmişdir.

Dövlət orqanları tərəfindən qiymətləndirmə nəticəsində dövlət qulluqçularının təlimlərə olan tələbatları müəyyən edilmiş və dövlət qulluqçularının fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə müvafiq təlimlərə cəlb edilməsi nəzərdə tutulmuşdur. Qiymətləndirmə nəticələrinə uyğun olaraq 32 halda xidməti fəaliyyətin qiymətləndirilməsi, 43 halda normayaradıcılığı, 14 halda mühasibat uçotunun aparılması, 53 halda informasiya-kommunikasiya texnologiyaları, 112 halda etik davranış qaydaları, 13 halda kadr işinin aparılması və dövlət qulluğu məsələləri, 89 halda kargüzarlığın (o cümlədən elektron kargüzarlığın) aparılması və sənədlərlə iş üzrə bilik və bacarıqların təkmilləşdirilməsinə, habelə 20-yə yaxın digər mövzularda təlimlərin keçirilməsinə ehtiyac olduğu müəyyən olunmuşdur. (6)

**TƏDİQAT METODLARI**

**Qiymətləndirmə nədir?**

Fəaliyyətin qiymətləndirilməsi ədəbiyyatda “Müvəffəqiyyətin qiymətləndirilməsi”, “Ləyaqətin qiymətləndirilməsi”, “İşçilərin sıralaması”, “Kadrların qiymətləndirilməsi” kimi terminlərlə ifadə edilir.

Ümumiyyətlə, ədəbiyyatda Performans Qiymətləndirilməsi;

• İnsanın qabiliyyətlərini, potensial gücünü, iş vərdişlərini, davranışlarını və oxşar keyfiyyətlərini digər insanlarla müqayisə etmək,

• Menecer işçilərin iş performansını əvvəlcədən müəyyən edilmiş standartlarla ölçmək və müqayisə etməklə qiymətləndirir.

• Şəxsin öz vəzifəsindəki uğurunu, işdəki münasibət və davranışlarını, əxlaqi vəziyyətini və xüsusiyyətlərini təfərrüatlandırır və birləşdirir, təşkilatın uğuruna fərdin töhfələrini qiymətləndirir və planlaşdırır,

• Personalın uğur və ya uğursuzluğu haqqında mühakimə yürütmək,

•Balanslaşdırılmış əmək haqqı sisteminin tətbiqində, işçilərin yüksəldilməsində, iş dəyişiklikləri və təlim ehtiyacının müəyyən edilməsində, işçi seçimi və təyinatında istifadə olunur,

• İşçilərin öz işlərində uğurlarını həmin işin tələblərinə uyğun olaraq qiymətləndirən bir proses kimi müəyyən edilir.(3, s.335-365)

**Dövlət qulluğunda performans qiymətləndirməsi**

Performansla bağlı izah edilməli olan digər mühüm konsepsiya İctimai Fəaliyyətin İdarə edilməsikonsepsiyasıdır. Çox sadə, icra idarəetmə yanaşmasının dövlət idarəçiliyinə uyğunlaşdırılması və dövlət müəssisə və təşkilatlarında həyata keçirilir.

Effektivliyə yönəlmiş ölçülə bilən hədəflər müəyyən edilərək, dövlət xidmətləri bu hədəflərə uyğun həyata keçirilir. Ölçməklə hesabatlılığı təmin etmək ictimai performansın idarə edilməsiKomponentlərə performans məlumatları, strateji planlaşdırma və performans auditi daxildir.Çünki vətəndaş məmnunluğu və inam baxımından önəmli olan ictimaiqurumların səmərəli fəaliyyətidir. Bu çərçivədə ictimaiinstitusional miqyasda, ictimai əmtəə və xidmətlərin resurslarla təmin edilməsinin əsas məqsədinə uyğun olaraq müəyyən edilirBiznes və xidmət məqsədlərinə yüksək sürətlə nail olmağı hədəfləyən təşəbbüslərin idarə edilməsi kimi müəyyən edilə bilər. İctimai fəaliyyətin idarə edilməsi ilk növbədə, ümumi performans idarəetmə yanaşmasına uyğun olaraq, aşağıdakı kimi işləyən bir prosesdir. Buna uyğun olaraq, məsələn, bir dövlət qurumu üçün nəzərdə tutulan dövlət xidmətinin məbləği,Əgər məqsəd ictimaiyyətin tələb və gözləntilərinin 100%-nə çatmaqdırsa, qurumun fəaliyyəti ən azı 60% və ya daha çox olmalıdır. Yüksək dəyərə malik dövlət xidmətlərinin uğurla təqdim edilməsi kimi başa düşülməlidir. Buna görə də bu nisbət aşağıdakı dəyərləri uğur mənasında performans kimi görmək düzgün deyil. Bu dəyərlər sadəcə olaraqbir nəticədir və hədəflənmiş performans/uğur kimi qəbul edilməməlidir. Bu baxımdan biz işin 60-70%-ni "orta" hesab edirik.performans; 71-89% arasında "yaxşı" performans; 90% və "əla" performans adlanır. 3.(335-365)

**Dövlət qulluğunda qiymətləndirmədə istifadə olunan metodlar**

- Qrafik Qiymətləndirmə Metodu

Qrafik qiymətləndirmə metodu ən qədim texnikadır və ən çox istifadə olunan üsuludur. Qiymətləndiriciyə hər bir işçi üçün forma verilir və müəyyən edilmiş meyarlara uyğun olaraq qiymətləndirilir.Qrafik qiymətləndirmə metodunun nümunəsi Cədvəl 1-də göstərilmişdir (6).

| Dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsi Forması | | | | | | |
|---|---|---|---|---|---|---|
| anının adı | | | | | | |
| **ılluqçusunun soyadı, adı və dı** | | Qulluq keçdiyi struktur bölmə | | Qulluq keçdiyi struktur vahidi | | |
| ə ixtisas dərəcəsi | | Tutduğu vəzifəyə təyin olunduğu tarix | | **Qiymətləndirilmə formasının hazırlanma tarixi** | | |
| **rəhbərinin soyadı, adı, dı, vəzifəsi və ixtisas dərəcəsi** | | Struktur bölmə rəhbərinin soyadı və adı | | Qiymətləndirilmə dövrü | | |
| (hədəflər) üzrə qiymətləndirilmə | | | | | | |
| (hədəfin) | İcra müddəti | Tapşırığın (hədəfin) icrasından gözlənilən nəticə | Tapşırığın (hədəfin) mühümlük dərəcəsi (faizlə) | Tapşırıq (hədəf) üzrə verilən qiymət | Tapşırığın (hədəfin) icra səviyyəsi üzrə fərdi qiymət (tapşırığın mühümlük dərəcəsi x tapşırıq üzrə verilən qiymət) | Tapşırığın (hədəfin) və onun icra müddətinin, tapşırığın (hədəfin) mühümlük dərəcəsində dəyişiklik haqqında qeyd |
| | | | | | | |
| rın (hədəflərin) yəsi üzrə ümumi | | | 100% | | | |

Cədvəl 1

- Korporativ Performans İdarəetməsi

Korporativ performansın idarə edilməsi prosesi, mühüm strateji prioritetlərin müəyyən edilməsi ilə bu prioritetlərin yuxarı səviyyəli işçidən aşağı səviyyəli işçiyə yayılması Strateji çıxışlardan nəticə əldə etməklə davam edən prosesdir. Korporativ

Performansın idarə olunması, hesabatlılıq və şəffaflıq təmin edilərkən, müəssisələr Bu alət onun effektivlik prinsipi ilə idarə edilməsini təmin edir

- Komanda (Unit) Performance Management

Bir komanda məqsədə çatmaq üçün toplanan iki qarşılıqlı qrupdan ibarətdir. Daha çox adamdan ibarət olan bir toplum olaraq ifadə edilir komanda performansı idarəetmə ilə fərdi performans arasındakı fərq insanların fərqli təcrübə, davranış və qabiliyyətlərə malik olmasıdır.Fərdlərin ümumi məqsəd üçünəlaqələndirilmiş fəaliyyətidir.1.(s.300).

- "360 dərəcə" Performans dəyərləndirilməsi

360 dərəcə qiymətləndirmə sistemindən, əvvəlcədən müəyyən olunmuş bir müddətdə işçi ilə əlaqə quran insanlardan məxfi, anonim rəy əldə etməklə istifadə olunur. İşçinin peşəkarlığı və müxtəlif keyfiyyətləri fərqli statuslara malik fərqli insanlar tərəfindən qiymətləndirilir. Əldə olunan məlumatlardan çıxarılan nəticə hesabat şəklində rəy olaraq işçiyə təqdim olunur. Bundan əlavə, işçinin çatışmazlıqları cəmləşdirilərək özünü inkişaf etdirmək məqsədi daşıyır. Sistem işçilərin fəaliyyətini yaxşılaşdırmaq və təlim ehtiyaclarını müəyyənləşdirməklə yanaşı, karyera idarəetmə, yüksəliş prosesləri və əmək haqqının tənzimlənməsi üçün də məlumatlar toplayır. Bu sistem eyni zamanda rəhbərin özü üçün də aparılır və bu zaman bir çox işçilər rəhbərə qarşı tam obyektiv ola bilmirlər.

360 dərəcə qiymətləndirmənin yaxşı cəhətlərinəüstün tərəfləri olan əməkdaşların güclü və zəif tərəflərinin müəyyənləşməsində rolu olan obyektivlik və geri dönüşü daha geniş əhatə etməsini vurğulamaq daha uyğun olar. Məhz bu ikisinin vasitəsilə də digər üstünlüklər ortaya çıxır. Məsələn, geri dönüş sayəsində işçinin zəif və güclü tərəfləri aydınlaşır. Buna da uğun olaraq tədbirlər görülməyə başlanılır. Həmçinin işçinin özü də bu dəyərlənmələrlə, fərqli baxış bucaqlarıyla özünü kənardan görə bilir. Bunlardan əlavə, həm işçilərarası, həm də rəhbər-işçi kommunikasiyası da təmin olunur. Bunuqeyd etməsək olmazdı, çünki kommunikasiya şirkətlərdə korporativ mədəniyyətin əsaslarından birini təşkil edir.

Üstünlükləri olmaqla yanaşı mənfi, zərərli cəhətləri də var.Belə ki, bu sistem o qədər də tez , sürətlidir deyə bilmirik. Çünki tətbiq olunma prosesi özlüyündə müəyyən bir müddətə malik olur. Bu 6 ay da , 1 il də sürə bilər.Dəyərləndirilən işçi əgər bundan məlumatlıdırsa, əvvəlcədən özünü bir neçə adam tərəfindən qiymətləndirilmə zamanını bilirsə, bu zaman özünü psixoloji basqıda hiss edə bilər.Bəzən isə sistemdə müstəsna rolu olan gizliliyin qorunması pozulur və bu da metodun yenidən tətbiqi zamanı vaxt itkisinə səbəb olur.

**NƏTICƏ**

Yuxarıda yazılan Dövlət İmtahan Mərkəzinin 2020-ci ildə paylaşdığı statistikaya nəzər salsaq görərik ki ölkəmizdə ənənəvi üsulla fərdi üsulla qiymətləndirməyə üstünlük verilir lakin bütün dünyada baş verən dəyişikliklər və inkişaflar ölkəmizdə də dövlət idarəçiliyinin fəaliyyətinə təsir göstərir və bu sahəyə fokuslanmış tədqiqatların əhəmiyyətini artıraraq ənənəvi idarəetmə yanaşmasını əvəz edir. Məqsəd keyfiyyət standartları çərçivəsində resurslardan səmərəli və qənaətlə istifadə olunmasını təmin etməkdir. Yeni ictimai idarəetmə yanaşmasını qəbul edib məqsədə çatmağın yolu performansın ölçülməsindən keçir. Yerli rəhbərliklər bu dəyişikliyin təsirinə məruz qalan qurumlarinsanlarla sıx təmasda olan vahidlərdir. Vətəndaşa göstərilən xidmətlərin keyfiyyətinin artırılması və dövlət xidmətlərinin təkmilləşdirilməsifəaliyyətin idarə edilməsi və performansın ölçülməsinin əhəmiyyətini vurğulamaq məqsədi daşıyır.

**Təkliflər**:

• 360 Dərəcə Qiymətləndirmə Metodundan İstifadə Edilməlidir:

Fəaliyyətin qiymətləndirilməsi hazırda birinci və ikinci rəhbərlər tərəfindən həyatakeçirilir, lakin gələcəkdə bu, "Müəssisə daxilində yaradılmış Qiymətləndirmə Komitəsi", "Özünü Qiymətləndirmə", "Tabeliyində olanlar tərəfindən Qiymətləndirmə" adlanacaq. və Həmkarlar" və "Üstün olan fikir ondan ibarətdir ki, "Birinci və İkinci Nəzarətçilər tərəfindən qiymətləndirmə" aparılmalıdır. Bu, ənənəvi idarəetmə yanaşmasından müasir idarəetmə yanaşmasına keçidin ifadəsidir. Bu, eyni zamanda 360 dərəcə qiymətləndirmə metodunun da ön plana çıxdığının göstəricisidir.

• İşdə Məhsuldarlıq və Peşəkar Bilik Səviyyələri Əsas Alınmalıdır:

Fəaliyyətin qiymətləndirilməsində hazırda "İşdə Səmərəlilik Səviyyəsi" və "Şəxsi Davranış Səviyyəsi"nə önəm verilir, lakin gələcəkdə "Səmərəlilik Səviyyəsi"nə əhəmiyyət verilməlidir. "Şəxsi Davranış Səviyyəsi" yerinə "Peşəkar Bilik Səviyyəsi"nə önəm verilməsi təklif olunub. Sorğuda "Şəxsi Davranış Səviyyəsi" əhəmiyyət verilməli olan meyarlar arasında sonuncu (5-ci) sırada yer aldır.

• Qiymətləndirmə Metodundan İstifadə Edilməlidir:

Fəaliyyətin Qiymətləndirilməsində İstifadə Edilən Metodlar arasında "Qiymətləndirmə Metodu" ən çox istifadə edilən metod kimi birinci yerdədir və indi və gələcəkdə istifadə olunmalıdır. Bu, həm də istifadə olunan metodunun etibarlılığının göstəricisidir.

Qiymətləndirmə əsasında işçilərə ilk öncə motivə edici söhbətlər aparılmalı mövcud vəziyyətin həlli ilə bağlı işçinin iştirakı ilə həll yolları axtarılmalı, bu yöndə aparılan işlər heç bir nəticə verməmikfə əmək məcəlləsinə uyğun olaraq İntizam tənbehinin verilməsi nəzərdə tutulmalıdır.

**ƏDƏBIYYAT SIYAHISI**

1. Akgün, A. E., Keskin, H., Özdemir M. (2004) [Elekrton resurs]./ "Geçici Takımlarda Amacın Açıklığı ve Hızlı Bilgi Yayılımı ve Takım Performansı Arasındaki İlişkiler"/ Atatürk Üniversitesi İ.İ.B.F. Dergisi, Cilt 18, Sayı 3-4, s. 299-316
URL: https://dergipark.org.tr/tr/download/article-file/29973 (Sayta giriş tarixi:15.11.2023)
2. BİNGÖL Dursun (1990), Personel Yönetimi ve Beşeri İlişkiler, Atatürk Üniversitesi Yayınları, s. 218
3. Kamil Ufuk Bilgin, Veysel Sevim performans değerlendirme:kamu personeli bireysel performans değerlendirmesi: "Ağırlıklı Performans Puanlama Modeli", Çalışanların Performans Değerlendirme Uygulamalarından Beklentileri Konusunda Bir Alan ÇalışmasıYrd.Doç.Dr. İsmail BAKANÖğr.Gör.HakanKELLEROĞLU) s.257-265
URL: https://dergipark.org.tr/tr/download/article-file/1954320 (Sayta giriş tarixi:15.11.2023)
4. Robert D. Behn Kennedy School of Government Harvard University 79 John F. Kennedy Street "Why Measure Performance", s(3-5)
URL:https://www.researchgate.net/publication/227533290_Why_Measure_Performance_Different_Purposes_Require_Different_Measures (Sayta giriş tarixi:15.11.2023)
5. Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019−2025-ci illər üçün Strategiya"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı / 23 noyabr 2018-ci ildə qəbul edilmişdir (maddə 5.9)
URL:https://e-qanun.az/framework/40748 (Sayta giriş tarixi:15.11.2023)
Dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsi Qaydası/Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı/6 aprel 2021-ci il, Bakı şəhəri ("Dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsi Qaydası"na 1 nömrəli əlavə)
URL: https://e-qanun.az/framework/47192 (Sayta giriş tarixi:15.11.2023)
6. Dövlət qulluğunda xidməti fəaliyyətin qiymətləndirilməsinə dair 2020-ci il üzrə Məlumat
URL:https://eservices.dim.gov.az/doc/XFQ.docx (Sayta giriş tarixi:15.11.2023)

# POST-MÜHARIBƏ DÖVRÜNDƏ AZƏRBAYCAN-TÜRKIYƏ MÜNASIBƏTLƏRI

**ƏLI MAHMUDOV**
Bakı Mühəndislik Universiteti
İqtisadiyyat və idarəetmə fakültəsi / Beynəlxəlq münasibətlər və diplomatiya
emahmudov4@std.beu.edu.az
BAKI,AZƏRBAYCAN

## XÜLASƏ

Məqalədə Qarabağ müharibəsi zamanı pik həddə çatan Azərbaycan Respublikasının Türkiyə Cümhuriyyəti ilə münasibətlərinin post-müharibə dövründə artan xətt inkişaf etdirilməsi öz əksini tapmışdır. Qeyd edək ki, son 20 ildə Azərbaycan-Türkiyə münasibətləri həm emosional, həm də ideoloji baxımından inkişaf etməkdədir. Bu baxımdan 2021-ci ildə Prezident İlham Əliyevin təşəbbüsü əsasında çoxtərəfli əməkdaşlığı özündə ehtiva edən "3+3" platforması yaradılmasından bəhs olunur. Bu platformanın əsas məqsədi Cənubi Qafqazda uzunmüddətli sülhün bərqərar olması, üzv ölkələrin əməkdaşlıq çərçivəsində qonşuluq münasibətlərini davam etdirməsidir. Həmçinin məqalədə Türkiyədə baş verən dəhşətli zəlzələ zamanı Azərbaycanın qardaş ölkəyə göstərdiyi maddi və mənəvi dəstək xüsusilə vurğulanmışdır. Eyni zamanda zəlzələ nəticəsində yaranan dağıntılardan insanları xilasetmək üçün xüsusi xilasedici dəstələr Türkiyə ərazisinə göndərildi. Həmçinin məqalədə 2023-cü ilin Türkiyə-Azərbaycan münasibətləri üçün ən uğurlu il hesab olunduğu qeyd olunur. Prezident İlham Əliyevin

Türkiyə Cümhuriyyət rəhbəri Rəcəb Tayyib Ərdoğanla rəsmi görüşləri, Türkiyə səfirlərinin ölkəmizə gəlmələri ayrıca diqqət çəkən məqamlardan hesab olunur. Məqalədə 2023-cü il 23 sentyabrda Iğdır-Nağçıvan qaz kəmərinin əsasının qoyulmasının qardaş ölkə ilə Azərbycanın münasibətlərində tarixi əhəmiyyətli rol oynadığı göstərilir. Naxçıvanda imzalanan sazişlər arasında Türkiyədə zəlzələ nəticəsində dağılmış ərazilərin, o cümlədən Kahramanmaraşın bərpası üçün Azərbaycan-Türkiyənin əməkdaşlıq etməsi də öz əksini tapmışdır. Bu sazişə əsasən bərpa prosesinə Azərbaycan Respublikasının maddi yardımlar göstərəcəyi vurğulanır.

**AÇAR SÖZLƏR: Qarabağ müharibəsi, Türkiyə Cümhuriyyəti, Azərbaycan, İlham Əliyev, saziş**
**KEYWORDS: Karabakh war, Republic of Turkey, Azerbaijan, Ilham Aliyev, agreement**

## GIRIŞ

Cənubi Qafqazın mürəkkəb geosiyasi mənzərəsi son münaqişələr, xüsusən 2020-ci ildə başa çatan İkinci Dağlıq Qarabağ müharibəsi nəticəsində dərin dəyişikliklərə məruz qalıb. Regionun dinamikasını formalaşdıran əsas oyunçular arasında Azərbaycan və Türkiyə strateji müttəfiqlər kimi ortaya çıxıblar. Müharibədən sonrakı dövr həm çağırışlarla, həm də imkanlarla əlamətdar olan münasibətlərinin yenidən inkişafı səbəb oldu.

Bu məqalə münaqişədən sonra Azərbaycan-Türkiyə münasibətlərinin nüanslı ölçülərini araşdırır, bu iki xalqın inkişaf edən geosiyasi ssenaridə necə hərəkət etdiyini araşdırır. Onları bir-birinə bağlayan tarixi kontekstdən əlavə, biz İkinci Dağlıq Qarabağ müharibəsinin onların diplomatik əlaqələri və bundan sonra yaranan əməkdaşlıqlarına təsirini araşdıracağıq. Bundan əlavə, məqalədə Azərbaycan və Türkiyə arasında strateji tərəfdaşlığın formalaşmasında xarici aktorların rolu, regional dinamika və ümumi maraqların güdülməsi işıqlandırılacaq.

Azərbaycan-Türkiyə münasibətlərinin dinamikasını anlamaq Cənubi Qafqaz və daha geniş region üçün daha şaxəli təsirləri dərk etmək çox vacibdir. Bu araşdırmanın məqsədi müharibədən sonrakı dövrdə bu ittifaqın diplomatik, iqtisadi və təhlükəsizlik ölçülərinə təsir edən faktorlar haqqında məlumat vermək və inkişaf edən regional mənzərənin hərtərəfli başa düşülməsinə töhfə verməkdir.

## TƏDQIQAT METODU

### Azərbaycan-Türkiyə Münasibətləri

Müstəqilliyini bərpa edən Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında diplomatik əlaqələr dərhal başladı. Son iki onillikdə bu xalqlar arasında əlaqələr əhəmiyyətli dərəcədə möhkəm olub, kifayət qədər ideoloji və emosional rezonans nümayiş etdirib. Əlaqələr strateji tərəfdaşlığa çevrilərək əhəmiyyətli layihələr vasitəsilə möhkəmləndirilib və rəsmiləşdirilib.

İkinci Qarabağ müharibəsinin başa çatması Azərbaycan-Türkiyə münasibətlərinin tərəqqisində mühüm mərhələ oldu və xüsusilə müsbət trayektoriya ilə xarakterizə olundu. 44 günlük münaqişə iki xalq arasında strateji tərəfdaşlığın yeni mərhələsi kimi qəbul edilir. Qarşılıqlı olaraq Azərbaycan Türkiyə ilə əlaqələrinə dərin həssaslıq, dostluq və qardaşlıq hissi ilə yanaşır.

Prezidentin "Azərbaycan Respublikasında Zəfər Gününün təsis edilməsi haqqında" 2 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən, Vətən müharibəsində qazanılan qələbənin xatirəsini anmaq məqsədilə artıq hər il noyabrın 10-u Zəfər Günü kimi qeyd edilir. Prezident İlham Əliyev noyabrın 10-u Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün anım günü kimi əhəmiyyətini qiymətləndirərək, bu tarixin 8 noyabra dəyişdirilməsi barədə qərar qəbul edib. Bu düzəliş Şuşanın işğaldan azad edilməsi ilə üst-üstə düşür və hərarətlə qarşılanıb. Bu addım Türkiyə mediası və ictimaiyyəti tərəfindən böyük rəğbətlə qarşılanıb. Bu bir daha göstərir ki, Azərbaycan-Türkiyə münasibətlərinin əslində göründüyündən daha yüksək səviyyədədir [11].

Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında münaqişədən sonrakı dövrdə daha bir mühüm və diqqətəlayiq hadisə 2021-ci il iyunun 15-də müttəfiqliyi rəsmiləşdirən Şuşa Bəyannaməsinin təsdiqlənməsi oldu. İki ölkə arasında müttəfiqliyi möhkəmləndirən Şuşa Bəyannaməsinə Qafqazın tarixini yenidən formalaşdıran mühüm məqam kimi baxmaq olar. Bu bəyannamə 44 günlük Vətən Müharibəsindən sonra Türkiyənin Cənubi Qafqazdakı rolu ilə bağlı müzakirələrə təsirli şəkildə toxundu.

Bəyannamənin imzalanmasından sonra hər iki Azərbaycan və Türkiyə prezidentləri mətbuata birgə bəyanatlarla çıxış ediblər. Dövlət başçısı çıxışında bəyannamənin tarixi əhəmiyyəti ilə bağlı həlledici məqamları xüsusi qeyd edib. Əsas vurğu düz bir əsr əvvəl imzalanmış və dərin simvolik əhəmiyyət daşıyan tarixi Qars müqaviləsi ilə bağlı idi. Bir əsr sonra işğaldan azad edilmiş Şuşa

şəhərində imzalanmış Birgə Bəyannamə iki xalq arasında gələcək əməkdaşlığın istiqamətlərinin sübutu kimi çıxış edir [9].

2021-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə "3+3" platformasının yaradılması konsepsiyası təqdim edilib. Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan bu platformanın yaradılmasını ilk dəstəkləyən şəxs olub və bunun regionda uzunmüddətli sülhün təmin olunmasında mühüm rol oynayacağına inandığını bildirib. "Altılıq" və ya "3+3" formatı kimi tanınan bu platforma Türkiyə, Rusiya və İranla yanaşı üç Cənubi Qafqaz ölkəsinin – Azərbaycan, Gürcüstan və Ermənistanın iştirakını nəzərdə tutur.

Azərbaycanın bu platformanın yaradılmasına perspektivi ondan ibarətdir ki, belə çoxtərəfli əməkdaşlıq formatının yaradılması regional əməkdaşlığa və davamlı sülhün təşviqinə mühüm töhfələr vermək potensialına malikdir [5].

"3+3" platformasının yaradılması Cənubi Qafqazı qısa müddətdə ziddiyyətlərlə yadda qalan regiondan kommersiya və iqtisadi əməkdaşlıq mərkəzinə çevirərək sürətlə transformasiya etmək potensialına malikdir. Uzun müddət ərzində bu təşəbbüs regionu Avrasiyada əsas nəqliyyat mərkəzinə çevirə bilər. Bu formatın həyata keçirilməsi təkcə regional təhlükəsizlik üçün deyil, həm də yeni münaqişələrin baş verməsinin qarşısının alınması baxımından əhəmiyyət kəsb edir. Ermənistanın Qarabağı işğal etməsi və onun konstruktiv danışıqlar aparmaq istəməməsi regionun bütün dövlətləri arasında hərtərəfli əməkdaşlığın qurulmasına, iqtisadi, nəqliyyat və logistika əlaqələrinin formalaşmasına mane olub. "3+3" platforması isə regionda mövcud vəziyyəti kökündən dəyişdirəcəyi gözlənilir [5].

"3+3" formatı region üçün təkcə siyasi və təhlükəsizlik baxımından deyil, həm də iqtisadi baxımdan əhəmiyyətli vədlər verir. Hesablamalara əsasən, "3+3" formatını təşkil edən dövlətlərin kollektiv iqtisadiyyatları təxminən 3 trilyon dollara yaxınlaşaraq, onu ABŞ, Çin, Yaponiya və Almaniyadan sonra dünyanın beşinci ən böyük iqtisadiyyatı kimi yerləşdirir. 331 milyon əhalisi olan bu format qlobal miqyasda üçüncü ən böyük yer tutur və ərazi baxımından birinci yerdədir.

Bu format çərçivəsində sənaye, kənd təsərrüfatı və xidmət sektorları üzrə qarşılıqlı investisiyalar və əməkdaşlıq potensialı genişdir. "3+3" tənzimləməsi regional ticarəti stimullaşdırmaq və bununla da iqtisadi artımı gücləndirmək qabiliyyətinə malikdir. Cənubi Qafqaz ölkələri üçün əhəmiyyətli bazarlar təqdim edən Rusiya, Türkiyə və İranla ticarət əlaqələrini genişləndirmək imkanı xüsusilə diqqətəlayiqdir. Bu, şübhəsiz ki, "3+3" formatının yaratdığı ən sərfəli perspektivlərdən biri kimi seçilir.

İkinci Qarabağ müharibəsindəki tarixi qələbə Azərbaycan, Türkiyə və digər türk dövlətləri arasında münasibətlərin inkişafında yeni mərhələyə zəmin yaratdı. Bu sürəti əks etdirən 2022-ci il dekabrın 14-də Türkmənbaşı şəhərində Azərbaycan Prezidenti İlham Əliyev, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədovun iştirakı ilə görüş keçirilib. Toplantıda çıxış edən dövlətimizin başçısı Türkmənistan, Türkiyə və Azərbaycan arasında əməkdaşlığın genişləndiyini vurğulayaraq qeyd etdi ki, "Tarixi bağlara söykənən əlaqələrimiz iqtisadiyyat, ticarət, nəqliyyat-logistika kimi müxtəlif sahələrdə əməkdaşlığın inkişafı üçün imkanlar yaradır. 2022-ci ilin yanvar-oktyabr aylarında Azərbaycanın Türkiyə ilə ticarət dövriyyəsi 45 faiz artaraq 5 milyard dollara çatıb. Azərbaycan Türkiyə iqtisadiyyatına təxminən 20 milyard dollar, Türkiyə isə Azərbaycan iqtisadiyyatına 14 milyard dollara yaxın sərmayə qoyub. Xüsusən, ticarət dövriyyəsi bu il Türkmənistanla 5 dəfə artmışdır, bu, rekord nailiyyət hesab olunur. Azərbaycan, Türkiyə və Türkmənistanın nəqliyyat və logistika sahəsində kollektiv səyləri, nəqliyyat əlaqələri sahəsində əməkdaşlıq imkanlarını genişləndirən çoxsaylı layihələrlə nəzərəçarpacaq uğur qazanıb. " [3].

6 fevral 2023-cü ildə Türkiyədə baş verən dağıdıcı zəlzələ Kahramanmaraş, Hatay, Malatya və Adıyaman şəhərlərinə ciddi ziyan vuraraq humanitar böhrana səbəb oldu. Zəlzələdən sonra Azərbaycan xalqı təcili olaraq Türkiyəyə dəstək olmaq üçün toplanaraq təbii fəlakətdən zərər çəkmiş bölgələrə yardım göndərdi. 2023-cü il fevralın 8-də Prezident İlham Əliyev xeyli sayda insan itkisi ilə bağlı Türkiyənin Azərbaycandakı səfirliyinə gələrək başsağlığı verib.

Səfəri zamanı ölkə başçısı bildirdi ki, "Qardaşlarımızın dərdini bölüşürük və yaralananların tezliklə sağalması üçün dua edirik. Mən hörmətli qardaşım cənab Prezidentə başsağlığı vermək üçün zəng edəndə onu əmin etdim ki, biz onlara tam dəstək vermək öhdəliyinə sadiqik və davamlı olaraq nümayəndə heyətləri göndərilirəcək. Bundan əlavə, həkimlər, xilasedicilər və könüllülər göndərilir və göndərilməkdə davam edəcək" [6]. Prezident İlham Əliyev Azərbaycan xalqının könüllü səylərini xüsusi qeyd etdi, bildirdi ki, onlar öz qardaşlarına kömək etmək üçün əllərindən gələni gətirirlər:

yorğan, döşək, pencək və ya hər hansı digər yardım. Onun sözlərinə görə, bu, dünyaya nümayiş etdirir ki, həqiqi qardaşlıq münasibətləri təkcə dövlətlərarası və rəhbərlik səviyyəsində deyil, həm də insanlar arasında mövcuddur, təbii və səmimi əlaqəni əks etdirir. Bundan əlavə, Azərbaycandan olan könüllülər, Fövqəladə Hallar Nazirliyinin şəxsi heyəti və xilasedicilər öz yardımlarını göstərmək üçün dərhal zərərçəkmiş əraziyə yollanıblar.

Ölkə başçısının göstərişlərindən sonra bütün yardımlar mərkəzləşdirilmiş obyekt vasitəsilə əlaqələndirilib. 2023-cü il fevralın 6-dan martın 15-dək Türkiyəyə ümumilikdə 76 milyon 344 min 930 manat (44 milyon 908 min 783 ABŞ dolları) humanitar və maliyyə yardımı göndərilib. Qeyd edək ki, bu müddət ərzində Türkiyəyə 53 milyon 568 min 530 manat (31 milyon 510 min 900 dollar), birbaşa maliyyə yardımı isə 22 milyon 776 min 400 manat (13 milyon 397 min 883 dollar) məbləğində humanitar yardım göstərilib. Azərbaycandan ezam olunmuş 669 xilasedici kontingent Türkiyənin müxtəlif şəhərlərində, o cümlədən Hatay, Antakya, Kahramanmaraş, Adıyaman və digərlərində xilasetmə əməliyyatlarında fəal iştirak ediblər.

Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın rəhbərliyi ilə Türkiyənin zəlzələdən zərər çəkmiş bölgəsinə hərtərəfli yardım paketi təşkil edilərək göndərilib. Bura 2518 çadır, 135 elektrik generatoru, 19 894 çarpayı və çarpayı ləvazimatları, 404 058 dərman və tibbi ləvazimat, 143 955 dəst isti geyim daxildir. Bundan əlavə, 2653 ədəd istilik cihazı, 6603 qutu ərzaq və ərzaq məhsulları, digər zəruri əşyalarla birlikdə alınaraq göndərilib. Bütövlükdə dövlət qurumları zəlzələdən zərər çəkənlərə yardım məqsədilə 44 082 967 manat (25 931 157 ABŞ dolları) məbləğində humanitar yardım ayırıb. Yardımın Türkiyəyə sürətli və səmərəli çatdırılmasını təmin etmək üçün 16 təyyarə, 459 yük maşını və 25 vaqondan istifadə edilib [4].

Azərbaycan zəlzələdən sonra aparılan yenidənqurma və tikinti işlərinə dəstək verib. Türkiyədə baş vermiş zəlzələnin nəticələrinin aradan qaldırılmasında həm Azərbaycan xalqının, həm də hökumətin göstərdiyi yardım ümummilli lider Heydər Əliyevin "Türkiyə və Azərbaycan bir millət, iki dövlətdir" fikrini bir daha vurğuladı.

2023-cü il aprelin 29-da Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Türkiyənin İstanbul şəhərində keçirilən TEKNOFEST aerokosmik və texnologiya festivalında fəal iştirak ediblər. Festivalın açılış mərasimində Prezident Rəcəb Tayyib Ərdoğan təşəkkürünü bildirərək, Prezident İlham Əliyevin zəlzələnin mərkəzi Pazarcıkda baş verdiyi gündən Türkiyəyə dəstəyini əzmlə göstərdiyini qeyd edib. Ərdoğan daha sonra xatırladıb ki, Prezident İlham Əliyev nəinki dərhal Kahramanmaraşa axtarış-xilasetmə qrupları göndərib, həm də zərər çəkmiş ərazidə min ev tikəcəyinə söz verib. Bundan əlavə, Prezident Əliyev Kahramanmaraşda məktəb, məscid, yataqxana və yaşayış binaları ilə tamamlanan Azərbaycan şəhərinin salınmasını nəzərdə tuturdu. Bu layihənin təməli onların davamlı həmrəyliyinin sübutu olaraq festival zamanı qoyuldu [7].

2023-cü il Azərbaycan ilə Türkiyə arasında münasibətlərin formalaşmasında mühüm rol oynadı. 2023-cü il iyunun 3-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın andiçmə mərasimində iştirak ediblər. Prezident Ərdoğan 2023-cü il iyunun 13-də seçkilərdə qələbə qazandıqdan sonra həmin gün Şimali Kipr Türk Respublikasına, oradan isə Azərbaycan Respublikasına ilk səfərlərini edib.

2023-cü il ərzində Türkiyə rəsmiləri Azərbaycana çoxsaylı səfərlər edib, ölkə başçısı ilə bir sıra görüşlər keçiriblər. Qeyd edək ki, bu səfərlər 2023-cü il iyunun 14-də Prezident İlham Əliyev, Türkiyənin Ədalət və İnkişaf Partiyasının sədrinin birinci müavini Binəli Yıldırım ilə müzakirələr aparıb; Türkiyə Respublikasının Xarici İşlər Naziri Hakan Fidan, 5 iyul 2023-cü il; Türkiyə Böyük Millət Məclisinin sədri Numan Kurtulmuş, 12 iyul 2023-cü ildə; Türkiyə Böyük Millət Məclisinin (TBMM) Xarici Əlaqələr Komitəsinin sədri Fuat Oktayın başçılıq etdiyi nümayəndə heyəti 17 iyul 2023-cü il tarixində; Türkiyə Respublikasının Milli Müdafiə Naziri Yaşar Gülər, 27 avqust 2023-cü il; və Türkiyə Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Metin Gürak 28 avqust 2023-cü il tarixində Türkiyənin yüksək rütbəli rəsmiləri ilə keçirilən bu qəbullar zamanı bir sıra məsələlər müzakirə edilmiş, qarşılıqlı əməkdaşlığın genişləndirilməsinə dair təkliflər nəzərdən keçirilmişdir [8].

25 sentyabr 2023-cü il tarixində Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Respublikasına rəsmi səfərə gəlib. Naxçıvan Beynəlxalq Hava Limanında ziyafətdən sonra İğdır-Naxçıvan qaz kəmərinin təməlqoyma mərasimi keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Ərdoğan bu tədbirdə fəal iştirak edərək iki xalq arasında enerji sahəsində əməkdaşlığı daha da möhkəmləndirdilər [9].

İğdır-Naxçıvan qaz kəməri Naxçıvanın qaz təchizatını şaxələndirmək, tək mənbədən asılılığı azaltmaq məqsədi daşıyır. Azərbaycan və Türkiyə arasında bu kəmərin tikintisinə dair anlaşma memorandumu 2020-ci il dekabrın 15-də Ankarada imzalanıb. Prezident İlham Əliyevin 10 fevral 2022-ci il tarixli sərəncamı ilə İğdır-Naxçıvan qaz kəmərinin tikintisi üçün dövlət büdcəsindən vəsait ayrılıb. Layihə "Naxçıvan Muxtar Respublikasının 2023-2027-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" çərçivəsində prioritet istiqamət kimi müəyyən edilib. Layihənin tamamlanmasından sonra Naxçıvanın qaza olan tələbatını tam ödəyəcəyi gözlənilir [10].

Naxçıvanda Azərbaycan və Türkiyə daha bir mühüm sazişi "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Türkiyə Respublikasının Kahramanmaraş vilayətində yaşayış binaları, ibtidai məktəb, uşaq bağçası və mədəniyyət mərkəzinin tikilməsi haqqında Əməkdaşlıq Sazişi" oldu [2]. Bu saziş Türkiyənin zəlzələlərdən zərər çəkmiş bölgələrində bərpa işlərinə töhfə vermək üçün Azərbaycanın mühüm təşəbbüsünü təmsil edir. Müqavilənin şərtlərinə əsasən, 6 dekabr 2023-cü il tarixində Türkiyə Kollektiv Mənzil İdarəsi Müdirliyinin (TOKİ) rəhbəri və Azərbaycan Mənzil İnşaatı Dövlət Agentliyinin İdarə Heyətinin sədri davam edən tikinti layihələrinə birgə baxış keçirib. Əslində, bu sazişə əsasən, Azərbaycan tikinti işlərinə 100 milyon dollar yardım göstərməyi öhdəsinə götürür. Kahramanmaraş şəhərində xüsusi Azərbaycan məhəlləsinin yaradılması nəzərdə tutulur və həmin ərazidə 1000 yaşayış evinin tikintisi planlaşdırılır [1].

## 1. NƏTICƏ

Nəticə olaraq qeyd edək ki, Azərbaycan-Türkiyə münasibətləri İkinci Qarabağ müharibəsi zamanı özünün pik həddinə çatmışdır. Müharibədən sonrakı dövr Azərbaycan-Türkiyə münasibətlərində nəzərəçarpacaq yüksəlişin şahidi olub, onların strateji tərəfdaşlığını möhkəmləndirib və Cənubi Qafqazın geosiyasi mənzərəsini yenidən formalaşdırıb. 2021-ci ilin iyununda Şuşa Bəyannaməsinin imzalanması Qafqazın tarixini yenidən yazan və iki xalq arasında formal müttəfiqliyin yaradılmasını şərtləndirən mühüm mərhələni simvolizə etdi.

Prezident İlham Əliyevin təklif etdiyi və Prezident Rəcəb Tayyib Ərdoğan tərəfindən dəstəklənən "3+3" platformasının uzaqgörən konsepsiyası regional sabitliyə və uzunmüddətli sülhə sadiqliyi vurğulayır. Azərbaycan, Gürcüstan, Ermənistan, Türkiyə, Rusiya və İranı əhatə edən bu format Cənubi Qafqazın mürəkkəb dinamikası şəraitində əməkdaşlığı inkişaf etdirmək üçün birgə səyləri əks etdirir.

Türkiyədə baş verən dağıdıcı zəlzələyə reaksiya Azərbaycan-Türkiyə münasibətlərinin dərinliyini daha da nümayiş etdirdi. Azərbaycanın sürətli və əsaslı humanitar və maliyyə yardımı, xilasedicilərin fəal iştirakı və yenidənqurma işlərinə dəstəyi iki xalq arasında sarsılmaz həmrəyliyin nümunəsi oldu.

Əslində, müharibədən sonrakı dövr təkcə Azərbaycan-Türkiyə münasibətlərini möhkəmləndirmədi, həm də regional geosiyasətdən kənara çıxan dinamik tərəfdaşlığın yaranmasına şahid oldu. Böhranlara cavab olaraq birgə təşəbbüslər, birgə iqtisadi layihələr və mədəni mübadilələr sabit və firavan Cənubi Qafqaz üçün ümumi baxışı vurğulayır. Müharibədən sonrakı bu dövrdə Azərbaycan-Türkiyə münasibətlərinin trayektoriyası regional sülh və inkişaf öhdəliyi ilə qarşılıqlı maraqları balanslaşdıran strateji əməkdaşlıq modelini əks etdirir.

**ƏDƏBIYYAT SİYAHISI**

1. “Azərbaycan Kahramanmaraşda min ev inşa edəcək” - TOKİ rəhbəri. [Elektron resurs]. URL: https://qafqazinfo.az/news/detail/azerbaycan-kahramanmarasda-min-ev-insa-edecek-420606

2. “Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Türkiyə Respublikasının Kahramanmaraş vilayətində yaşayış binaları, ibtidai məktəb, uşaq bağçası və mədəniyyət mərkəzinin tikilməsi haqqında Əməkdaşlıq Sazişi”nin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu. [Elektron resurs]. URL: https://president.az/az/articles/view/62298

3. Azərbaycan, Türkiyə və Türkmənistan prezidentlərinin geniş tərkibdə görüşü keçirilib. [Elektron resurs]. URL: https://president.az/az/articles/view/58192

4. Azərbaycan Türkiyəyə nə qədər yardım edib? - Ümumi məbləğ. [Elektron resurs]. URL: https://qafqazinfo.az/news/detail/azerbaycan-turkiyeye-ne-qeder-yardim-edib-umumi-mebleg-394729

5. Azərbaycanın təklif etdiyi “3+3” formatı Qafqazda mühüm dəyişikliklərə yol açır... [Elektron resurs]. URL:https://aqreqator.az/az/siyaset/4266010

6. İlham Əliyev Türkiyənin Azərbaycandakı səfirliyində olub, çox sayda insanın həlak olması ilə əlaqədar başsağlığı verib. [Elektron resurs]. URL: https://president.az/az/articles/view/58876

7. İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan İstanbulda “TEKNOFEST” festivalında iştirak ediblər. [Elektron resurs]. URL: https://president.az/az/articles/view/59541

8. İlham Əliyev Türkiyənin Ədalət və İnkişaf Partiyası sədrinin birinci müavini Binəli Yıldırımı qəbul edib. [Elektron resurs]. URL: https://president.az/az/articles/view/60237

9. İlham Əliyevin Türkiyənin Anadolu Agentliyinə müsahibəsi 28.09.2021. [Elektron resurs]. URL: https://president.az/az/articles/view/53249

10. İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan İğdır-Naxçıvan qaz kəmərinin təməlinin qoyulması mərasimində iştirak ediblər. [Elektron resurs]. URL: https://president.az/az/articles/view/61245

11. Nəciyev, E., Rusiyanın Avropa ölkələri və Türkiyə ərazisində “Cənub Qaz Dəhlizi”nə qarşı fəaliyyəti, bu istiqamətdə təsir imkanları və istifadə etdiyi vasitələr`, https://www.unectf.org/2875/ (30.09.2023).

# MÜHƏNDİSLİK ELMLƏRİ

## AZƏRBAYCANIN NAXÇIVAN MUXTAR RESPUBLİKASININ "DARIDAĞ" TERMAL SUYUNUN ÖZLÜLÜYÜNÜN VƏ SIXLIĞININ TƏCRÜBİ MƏLUMATLARININ ÜMUMİLƏŞDİRİLMƏSİ

**MAHIR BƏŞIROV [1] , NOFƏL NƏBIYEV [2] , AYTƏN NAMAZOVA [3]**

[1]Bakı Mühəndislik Universiteti, "Mexanika mühəndisliyi" kafedrası
Azərbaycan, Xırdalan şəhəri, H. Əliyev küç. 120, AZ 0101
mbashirov@beu.edu.az

[2]Bakı Mühəndislik Universiteti, " Logistika və nəqliyyat texnologiyaları" kafedrası
Azərbaycan, Xırdalan şəhəri, H. Əliyev küç. 120, AZ 0101
nnabiyev@beu.edu.az

[3]Texniki-humanitar lisey, Azərbaycan, Bakı şəhəri, 20 Yanvar küç.60, AZ 1102
aytan_bashirova@yahoo.com

**SUMMARY**

The main goal of the research is the analytical summation of the experimental results of the dynamic, kinematic viscosity and density of the "Darydag" thermal water of the Julfa district of the Nakhchivan Autonomous Republic of Azerbaijan at different temperatures. In this work, the data of the dynamic, kinematic viscosity obtained from the "Stabinger SVM 3000" viscometer and the density of thermal water obtained from the experimental device working with the vibrating tube densimeter method were used as the results of the exact scientific research conducted by us. Then, based on the experimental results of "Darydag" thermal water taken under the same temperature conditions in the $\eta = f(\rho)$ və $\nu = f(\rho)$ coordinate system determined with the help of polynomial equations, the dependences were proposed in the article. The polynomial coefficients were calculated from the experimental data by the method of least squares and given in the table. Taking into account the proposed equations and polynomial coefficients, it is possible to calculate the values of dynamic ($\eta$) and kinematic viscosity (ν) of thermal water "Daridag" of Julfa district of Nakhchivan Autonomous Republic of Azerbaijan at different temperatures within the experimental error.

KEY WORDS: Density, dynamic and kinematic viscosity, temperature, thermal waters.

**XÜLASƏ**

Tədqiqat işində əsas məqsəd Azərbaycanın Naxçıvan Muxtar Resrublikasının Culfa rayonunun "Darıdağ" termal suyunun dinamik, kinematik özlülüyünün və sıxlığının müxtəlif temperaturlardakı təcrübi nəticələrinin analitik ümumiləşdirilməsindən ibarətdir. İşdə tərəfimizdən aparılmış dəqiq elmi tədqiqatların nəticələri olaraq "Stabinger SVM 3000" viskozimetrindən alınmış dinamik, kinematik özlülüyünün və vibrasiyalı borulu densimetr metodu ilə işləyən təcrübə qurğusundan alınmış termal suyun sıxlığının məlumatlarından istifadə olunmuşdur. Sonra polinomial tənliklərin köməyi ilə təyin olunmuş $\eta$ - $\rho$ və $\nu$-$\rho$ koordinat sistemində eyni temperatur şərtlərində götürülmüş "Darıdağ" termal suyunun alınmış təcrübi nəticələri əsasında məqalədə $\eta = f(\rho)$ və $\nu = f(\rho)$ asılılıqları təklif olunmuşdur. Polinom əmsalları təcrübi məlumatlardan ən kiçik kvadratlar metodu ilə hesablanmış və cədvəldə verilmişdir. Təklif olunmuş tənlikləri və polinom əmsalları nəzərə almaqla, Azərbaycanın Naxçıvan Muxtar Respublikasının Culfa rayonunun "Darıdağ" termal suyunun müxtəlif temperaturlardakı dinamik ($\eta$) və kinematik özlülüyünün (ν) qiymətlərini təcrübə xətası daxilində hesablamaq mümkündür.

**AÇAR SÖZLƏR: Sıxlıq, dinamiki və kinematik özlülük , temperatur, termal sular.**

### GIRIŞ

Termal və mineral sulardan geniş miqyasda və səmərəli istifadə etməklə respublikamızda bir çox yeni təsərrüfat sahələri–mineral sudoldurma müəssisələri, kimya və energetika sənayesi, tibbi sağlamlıq ocaqları, turizm və rekreasiya obyektləri yaratmaq olar ki, bu da ölkədə əmək ehtiyatlarının işlə təmin

olunmasına müsbət təsir edər. Bunun nəticəsində işsizlik problemi qismən də olsa aradan qaldırılar, iaşə müəssisələri genişlənər, turistlərin ərzaq məhsullarına olan tələbatlarının ödənilməsi üçün kənd təsərrüfatı sahələri inkişaf etdirilər. Nəzərə almaq lazımdır ki, müasir dövrdə dünyanın inkişaf etmiş və inkişaf etməkdə olan bir çox ölkələrində termal və mineral sulardan göstərilən bütün sahələrdə səmərəli istifadə edilir və onlardan əlavə gəlir mənbəyi kimi xeyli qazanc götürülür.

Azərbaycanda Respublikasında da son 20 ildə bu istiqamətdə mühüm işlər aparılır. Azərbaycan Respublikası bərpa olunan enerji mənbələri ilə bağlı hədəfini artıq 2004-cü ildə təsdiq emişdir (Azərbaycan Respublikasında Alternativ və Bərpa olunan olunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət poqramı , 2004). Belə ki, bərpa olunan enerji mənbələrindən biri də geotermal enerji mənbələri olub , yer təkinin müxtəlif dərinliklərində toplanan istilik nəticəsində əmələ gələn kimyəvi maddələrdən, isti su və buxardan birbaşa və ya dolayı yolla istehsal edilən enerjilər nəzərdə tutulur. Geotermal enerjidən həmçinin istilik və soyutma məqsədləri üçün və ya təmiz elektrik enerjisi istehsalında istifadə edilə bilər. Termal suların yeraltı istilik enerjisinin akkumulyatoru və yüksək istilik-enerji tutumluğu xüsusiyyətlərinə malik olması bərpa olunan enerji mənbələri sırasında onların xüsusi əhəmiyyətə malik olduğunu göstərir. Azərbaycan Respublikası zəngin termal su ehtiyatına malik olsa da, onun çox cüzi bir hissəsindən istifadə olunur. İstifadəyə yararlılıq dərəcəsindən, geostruktur, hidrogeotermik şəraitdən asılı olaraq Böyük Qafqaz, Abşeron yarımadası, Xəzəryanı-Quba, Kür-Araz ovalığı, Kiçik Qafqaz, Talış-Lənkəran, Cəlilabad-Zar, Şamaxı-Qobustan, Acınohur-Kür çaylararası və Naxçıvan hidrotermik rayonları mövcuddur. Azərbaycanın göstərilən termal rayonlarının ehtiyatı 249 min $m^3$/sutka olsa da, bu ehtiyatlardan daha çox müalicə məqsədilə istifadə olunur (Namazova , 2015). Azərbaycanın mineral sularının temperaturu 4-65$^0$C intervalda dəyişir. Bu ancaq təbii su mənbələrinə aiddir. Bununla yanaşı Azərbaycanda yerin dərinliklərində qazma yolu ilə temperaturu 95$^0$C çatmış sular çıxarılır.

**TƏDQIQAT METODU**

Azərbaycanın Naxçıvan Muxtar Respublikası karbon anhidridi-karbonatlı, karbon anhidridi-xloridli, həmçinin hidrogen sulfidi-sulfatlı suların bütün növlərini özündə cəmləşdirən qiymətli geotermal enerji resursları ilə zəngindir. Bu regionun kurort yeri olması bir neçə mineral mənbənin mövcudluğu ilə müəyyən olunur. Belə ki, Culfa rayonu ərazisində Culfa şəhərindən 8 km. şimal-şərqdə Darıdağın ətəyində, okean səviyyəsindən 900 m. yüksəklikdə 5 bulaqla 32 sayda mexaniki quyular vardır. Yer altından təzyiqlə çıxan mineral tərkibli termal (isti) sular karbonqazlı, mərgümüşlü (radiaktiv zəhərli maddədir), yüksək minerallaşmış xlorlu-hidrokarbonatlı-natriumludur. Polşada "Kudova", Fransada "Lua-Bulbul", Almaniyada "Dürkgeym", Rusiyada "Sineqorsk" (Saxalin) adları ilə tanınan mineral bulaqlar da bu su ilə oxşarlıq təşkil edir. Darıdağ mineral suyu tərkibindəki duzların çox olmasına görə yuxarıda adları çəkilən termal bulaqlardan fərqlidir. Bu mineral sudan istər soyuq istərsə də isti içmək zərərlidir. 1991-ci ildən ərazidə pullu xidmətli Darıdağ Balneoloji Müalicəxanası fəaliyyət göstərir. Müalicəxana 1978-ci ildən yaradılaraq orada ürək-damar xəstəlikləri, dayaq-hərəkət orqanları, periferik əsəb sistemi, dəri, ginekoloji və.s xəstələr vanna qəbul etməklə müalicə olunurlar. Ərazidə 1977-ci ildən fəaliyyət göstərən Darıdağ Karbonqazı Zavodunda yeni avadanlıqlar quraşdırılaraq sutkalıq istehsal gücü 30 tona çatdırılmışdır. Zavod Naxçıvan MR Mineral Sular Birliyinin tabeliyindədir. Geotermal enerji resurslarının rəngarəngliyinə görə Naxçıvan Muxtar Respublikası sözün həqiqi mənasında "geokimyəvi muzeyi" xatırladır. Altı qrup mənbə – Darıdağ, Sirab, Vayxir, Nahacır, Badamlı və Qızılvəng içməli balneoloji kurortlar üçün fövqəladə hidromineral resurslardır.

Bu işin əsas məqsədi – Azərbaycanın Naxçıvan Muxtar Resrublikasının Culfa rayonunun "Darıdağ" termal suyunun dinamik, kinematik özlülüyünün və sıxlığının müxtəlif temperaturlardakı təcrübi nəticələrinin analitik ümumiləşdirilməsindən ibarətdir . Belə ki, Azərbaycanın Naxçıvan Muxtar Respublikasının Culfa rayonunun "Darıdağ" termal suyunun dinamik , kinematik özlülüyünün və sıxlığının dəqiq elmi tədqiqi üçün tərəfimizdən intensiv təcrübi tədqiqatlar aparılmış və bu tədqiqatların nəticələri həm ölkəmizdəki, həm də xaricdəki nüfuzlu jurnallarda dərc edilmişdir (Əhmədov , Səfərov , Bəşirov , 2015; Safarov , Bashirov , Hassel , Ahmadov , 2013; Safarov , Ahmadov , Bashirov, Shahverdiyev , Hassel , 2013).

İstifadə olunan termal sular bilavasitə onların səthə çıxma zonalarından götürülmüş və müxtəlif kimyəvi emal üsulları ilə təcrübi məqsədlər üçün hazırlanmışdır. Təcrübələr atmosfer təzyiqində və T = (278.15-363.15) K temperatur diapazonunda həyata keçirilmişdir (Əhmədov , Səfərov , Bəşirov ,

2015). Dinamik özlülüyün ölçülməsi üçün "Stabinger SVM 3000" viskozimetrindən istifadə olunmuşdur, həmçinin

$$\nu = \frac{\eta}{\rho}, \quad (1)$$

tənliyindən istifadə etməklə kinematik özlülüyü $\left(\nu, \frac{m^2}{s}\right)$ də hesablamaq mümkündür. Burada $\eta$ – dinamik özlülük (Pa·s), $\rho$ – sıxlıqdır (kq/m$^3$).

Naxçıvan Muxtar Respublikasında yerləşən "Darıdağ" termal suyunun atmosfer təzyiqində (p=0.101 MPa) sıxlığı DSA 5000M vibrasiyalı borulu densimetr qurğusunda, yüksək təzyiqlərində sıxlığın ölçülməsindən 10 dəfə dəqiq ölçülmüşdür (Əhmədov , Səfərov , Bəşirov , 2015; Safarov , Bashirov , Hassel , Ahmadov , 2013; Safarov , Ahmadov , Bashirov, Shahverdiyev , Hassel , 2013). Vibrasiyalı borulu densimetr metodu ilə işləyən DSA 5000M qurğusunun ümumi strukturu və iş prinsipi ətraflı təsvir edilmişdir (Əhmədov , Səfərov , Bəşirov , 2015; Safarov , Bashirov , Hassel , Ahmadov , 2013; Safarov , Ahmadov , Bashirov, Shahverdiyev , Hassel , 2013). Bu qurğu zavod şəraitində yoxlanılır və əlavə kalibrləməyə ehtiyac yoxdur. Zaman keçdikcə, qurğunun işləmə qabiliyyətinin yoxlanılmasını etalon mayelərin sıxlığının ölçülməsi yolu ilə yerinə yetirmək olar. Qurğu eyni zamanda ölçü temperaturunda sıxlıq ilə birlikdə səs sürətinin də yüksək dəqiqliklə ölçülməsinə imkan verir. Sıxlığın ölçülməsi T=(278,15–363,15) K temperatur intervalında və atmosfer təzyiqində aparılmışdır.

**NƏTICƏ**

Azərbaycanın Naxçıvan Muxtar Respublikasının Culfa rayonunun "Darıdağ" termal suyunun dinamik ($\eta$), kinematik özlülüyünün ($\nu$) və sıxlığının ($\rho$) təcrübi qiymətləri cədvəl 1 və 2-də verilmişdir.

*Cədvəl 1.* Azərbaycanın Naxçıvan Muxtar Resrublikasının Culfa rayonunun "Darıdağ" termal suyunun müxtəlif temperaturlardakı dinamik $\eta$ (Pa·s) və kinematik özlülüyünün $\nu(\frac{m^2}{s})$ təcrübi qiymətləri

| T/K | $\eta \cdot 10^6$ | $\nu \cdot 10^6$ |
|---|---|---|
| 278,148 | 1591,00 | 1,5652 |
| 288,152 | 1219,40 | 1,2014 |
| 293,151 | 1093,00 | 1,0780 |
| 298,151 | 982,24 | 0,9701 |
| 303,150 | 883,45 | 0,8738 |
| 313,151 | 734,91 | 0,7295 |
| 328,151 | 569,20 | 0,5689 |
| 343,151 | 463,30 | 0,4670 |
| 353,150 | 415,00 | 0,4209 |
| 363,150 | 370,02 | 0,3779 |

*Cədvəl 2.*

Azərbaycanın Naxçıvan Muxtar Resrublikasının Culfa rayonunun "Darıdağ" termal suyunun müxtəlif tempearturlardakı sıxlığının $\rho$/ kq/m$^3$təcrübi qiymətləri

| T/K | $\rho$/ kq/m$^3$ |
|---|---|
| 278,12 | 1016,74 |
| 288,13 | 1015,10 |
| 293,13 | 1013,93 |
| 298,14 | 1012,61 |
| 303,15 | 1011,01 |
| 313,16 | 1007,35 |
| 328,17 | 1000,46 |
| 343,17 | 991,92 |
| 363,15 | 979,16 |

Tərəfimizdən aparılmış təcrübə nəticələrindən istifadə edərək aşağıdakı polinomial tənliklərin köməyi ilə təyin olunmuş $\eta$ -$\rho$ və $\nu$ -$\rho$ koordinat sistemində eyni temperatur şərtlərində götürülmüş müvafiq termal suların alınmış təcrübi nəticələri əsasında məqalədə $\eta = f(\rho)$ və $\nu = f(\rho)$ asılılıqları təklif olunmuşdur.

$$\eta = \sum_{i=0}^{4} a_i \cdot \rho^i \quad (2)$$

$$\nu = \sum_{j=0}^{4} b_j \cdot \rho^j \quad (3)$$

burada: $a_i$ və $b_j$ – təcrübi məlumatlardan ən kiçik kvadratlar metodu ilə hesablanmış polinom əmsallarıdır və cədvəl 3-də verilmişdir.

*Cədvəl 3.*

Azərbaycanın Naxçıvan Muxtar Resrublikasının Culfa rayonunun "Darıdağ" termal suyu üçün $a_i$ və $b_j$ əmsallarının (2) və (3) tənliklərindən alınmış qiymətləri:

| $a_i$ | | $b_j$ | |
|---|---|---|---|
| $a_0$ | $-0.661710863146 \cdot 10^{+8}$ | $b_0$ | $-0.648577863958 \cdot 10^{+5}$ |
| $a_1$ | $0.190324279930 \cdot 10^{+6}$ | $b_1$ | $0.186605339421 \cdot 10^{+3}$ |
| $a_2$ | $-0.172289577975 \cdot 10^{+3}$ | $b_2$ | -0.169048371961 |
| $a_3$ | 0.0382842712389 | $b_3$ | $0.377058990329 \cdot 10^{-4}$ |
| $a_4$ | $0.985262250861 \cdot 10^{-5}$ | $b_4$ | $0.959543030856 \cdot 10^{-8}$ |

(2), (3) tənlikləri və polinom əmsalları (cədvəl 3) nəzərə alınmaqla, Azərbaycanın Naxçıvan Muxtar Resrublikasının Culfa rayonunun "Darıdağ" termal suyunun müxtəlif temperaturlardakı dinamik ($\eta$) və kinematik özlülüyünün ($\nu$) qiymətlərini təcrübə xətası daxilində hesablamaq mümkündür. (2), (3) tənlikləri həmçinin "Darıdağ" termal suyunun müxtəlif temperaturlardakı dinamik ($\eta$) və kinematik özlülüyünün təcrübədən kənar interpolyasiya və ekstrapolyasiya qiymətlərini də hesablamağa imkan verir.

**ƏDƏBIYYAT SIYAHISI**

1. Azərbaycan Respublikasında Alternativ və Bərpa olunan olunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət poqramı (Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 21 oktyabr tarixli 462 №-li sərəncamı ilə təsdiq edilmişdir), AMEA , Energetikanın problemləri, (1),5-38.
2. Namazova A.M.(2015). Şəki-Zaqatala iqtisadi-coğrafi rayonunun mineral və termal sularının təsərrüfat əhəmiyyəti . Bakı Universitetinin Xəbərləri. Təbiət elmləri seriyası, (3),152-159.
3. Əhmədov A., Səfərov C., Bəşirov M.(2015). Darıdağ termal suyunun istilik-fiziki xassələri. Azərbaycan Texniki Universiteti. Elmi Əsərlər, 2(2), 34-40.
4. Safarov J., Bashirov M., Hassel E., Ahmadov A.(2013). Density of Ilisu geothermal water resources of Gakh region of Azerbaijan. 19th Turkish National Congress, 9-12 September, Samsun,Turkey, 210-211.
5. Safarov J, Ahmadov A., Bashirov M., Shahverdiyev A., Hassel E.(2013). Density and sound velocity measurements of geothermal water resources of Gabala-Gakh regions of Azerbaijan. Institute of Technical Thermodynamics University of Rostok,Germany,27-28 mart , 112-113.

# ÖRTÜKÇƏKMƏKLƏ PORŞENLƏRİN XASƏLƏRİNİN YAXŞILAŞDIRILMASININ TƏDQİQİ

**VURĞUN QƏHRƏMANOV, RZA QULUZADƏ**
vqahremanov@beu.edu.az
rquluzade1@std.beu.edu.az

**MURAD MƏMMƏDZADƏ**
BAKI MÜHƏNDİSLİK UNİVERSİTETİ
MÜHƏNDİSLİK/MÜHƏNDİSLİK ELMLƏRİ
mmemmedzade5@std.beu.edu.az
**XIRDALAN /AZƏRBAYCAN**

**XÜLASƏ**

Ümumiyyətlə örtükçəkmə əsasən də keramik örtükçəkmələrin tətbiq edilməsi, müxtəlif əməliyyatlardan ibarət olan bir prosesdir. Aparılacaq əməliyyatların düzgün və ardıcıl yerinə yetirilməsi, hazırlıq mərhələləri və s. layihənin uğurlu alınmasına geniş təsir göstərir. Örtükçəkmənin faktiki effektivliyi, örtüyün yapışmasını və keramik qatının ən son mərtəbəsini müəyyənləşdirən mexaniki, kimyəvi və fiziki bağlarla dərin əlaqəlidir. Kimyəvi buxarlanma daxil olmaqla, ən vacib keramik örtükçəkmə proseslərinə Plazma ilə püskürtmə, Detonasion Topu, Oksigen Asetilen Toz və s. daxildir.

**AÇAR SÖZLƏR.** Porşen, silindr, örtük, mühərrik, blok, temperatur, tproqramlar, analiz.

**SUMMARY**

In general, coating is a process consisting of various operations, mainly the application of ceramic coatings. Correct and consistent execution of the operations to be carried out, preparation stages, etc. has a wide influence on the successful completion of the project. The actual effectiveness of the coating is deeply related to the mechanical, chemical and physical bonds that determine the adhesion of the coating and the final layer of the ceramic layer. The most important ceramic coating processes including chemical vaporization include Plasma Spraying, Detonation Ball, Oxygen Acetylene Powder, etc. includes.

**KEY WORDS:** Piston, cylinder, cover, engine, block, temperature, programs, analysis.

## GİRİŞ

Porşen istilik maşınlarında tətbiq olunan maşın hissəsidir. O qazın genişlənməsi nəticəsində yaranan təzyiqi qəbul edərək, onu mexaniki enerjiyə çevirir. Porşenlər adətən çarxqolu-sürgüqolu mexanizminə qoşulur. Həmçinin silindrin təmizlənməsi və doldurulmasınada da iştirak edir. Kompresssorlarda isə onun funksiyası əksinədir. Çarxqolu-sürgüqolundan alınan hərəkət nəticəsində porşen qazı sıxır. Porşen üç hissə-dən ibarətdir. Dib hissəsi, burada yanma prosesi baş verir. Kipləşdirici hissə, bunun köməyi ilə porşen və silindrin divarları arasında tam kiplik yaradılır ki, sıxma prosesi baş verə bilsin. Yönəldici hissə porşenin silindrboyuncahərəkətininizamlayır. Pistonlar əsasən mühərrik quruluşuna aiddir və əsasən avtomobil daxili yanma mühərrikləri üçün porşenlərdə istifadə oluna bilər. Porşen başlığında çərçivə kompozit materialı alüminium ərintisi - odadavamlı karbid və ya alüminium - odadavamlı karbidin həcmi 40-75 vol.% olan odadavamlı karbiddən hazırlanmış əlavə var. Çərçivə kompozit materialına daxil olan odadavamlı karbidlər kimi titan karbid və ya bor karbid istifadə olunur. Texniki həll variantlarından birində, kompozit materialın tərkibindəki ərintinin tərkibi, porşen yubka da daxil olmaqla, pistonun qalan hissələrinin hazırlandığı ərintinin tərkibi ilə üst-üstə düşməyə bilər. Belə bir pistonun istehsalı üçün bir üsul verilmişdir. İxtiranın istifadəsi daxili yanma mühərrikləri üçün pistonların yaradılmasını təmin edir, başlığı yüksək istilik müqavimətinə və yüksək temperaturda sərtliyə malikdir [1,2].

Alüminium ərintisindən hazırlanmış və tərkibində kompozit material və yubka olan başlığı olan daxili yanma mühərriki pistonu, əlavənin alüminium ərintisi - odadavamlı karbid və ya alüminium - həcmli odadavamlı karbiddən hazırlanmış çərçivə kompozit materialından olması ilə xarakterizə olunur. odadavamlı karbidin tərkibi 40-75% təqribən. Alüminium ərintisindən daxili yanma mühərriki

pistonunun istehsalı üsulu, bir yubka və qapaqdan ibarət bir qəlibə tökmə ilə xarakterizə olunur, ən çox təzyiq altında kristallaşma ilə, tökmə başlamazdan əvvəl bir çərçivə kompozit materialın qəlibinə yerləşdirilir. ərinti - sərt karbid və ya alüminium - sərt karbid və odadavamlı karbidin həcm tərkibi 40-75% həcmindədir [3].

Məlum olduğu kimi, daxili yanma mühərriklərinin səmərəliliyini təmin etmək üçün aşağı sıxlıqlı ərintilərdən, ilk növbədə, alüminium ərintilərindən porşenlərin hazırlanması məqsədəuyğun hesab edilir. Bununla belə, aşağı sıxlığa əlavə olaraq, materiala əlavə olaraq, yüksək (300-400 oC-ə qədər) temperaturda davamlılıq, artan sərtlik kimi bir sıra əlavə tələblər qoyulur. Buna görə də, alüminium ərintiləri, məsələn, silikon əlavələri olan AK18, AL25, avtomobil sənayesində daha çox istifadə olunur.

Piston dizaynında iki hissəni ayırd etmək olar: kapot və yubka. Piston başlığı, yəni yanma kamerasına dərhal bitişik olan hissə ən böyük istilik təsirlərinə məruz qalır. Bu kontekstdə, perspektivli porşen dizaynları, çarpaz başlığın istilik dayanıqlığını artırmaq üçün alüminium ərintilərini odadavamlı materiallarla gücləndirən kompozit materiallardan hazırlanır Rusiya Federasiyasının 2116487 nömrəli patentində göstərildiyi kimi, daxili yanma möhürünün pistonu haqqında məlumdur, sinif. F 02 F 3/00 çıxıldı [4]. Başlıq daxil olmaqla, piston alüminium ərintisindən ibarət kompozit materialdan hazırlanır: silisium karbid və ya alüminium oksid hissəcikləri ilə gücləndirilmiş alüminium ərintisi. Patent müəllifləri bildirirlər ki, kompozit materialdan istifadə pistonda istilik müqavimətini daha da yaxınlaşdırır, onun sıxlığını azaldır və sürtünmə gücünü artırır. Bununla belə, matris kompozitlərində ixtisaslar əsasən metal matrislə bağlıdır və nəticədə yüksək temperaturda aşağı düşür. Təklif olunan texnika, piston başlığının odadavamlı karbiddən hazırlanmış kompozit materialdan və ya alüminium odadavamlı karbid ilə gücləndirilmiş çərçivədən hazırlanmış daxili bir işə malik olacağı fikri ilə bağlıdır. Odadavamlı karbidlər, çərçivə kompozit materialına daxil olan titan karbid və ya bor karbid kimi odadavamlı karbidlər kimi istifadə olunur. Texniki variantda, kompozit materialın tərkibindəki ərintinin tərkibi onun hazırlandığı ərintinin tərkibi ilə eyni olmaya bilər, baxmayaraq ki, pistonun digər komponentləri daxili işi əhatə etmir.

Təklif olunan texnika təsvir edilmiş pistonun istehsal üsulunu da izah edir. Metod, təsvir etdiyimiz çərçivə kompozit materialından bir qəlibə tökülən (əsasən təzyiq altında kristallaşdığı üçün) daxili işdən istifadə etməkdir. Sonra müəyyən formada tökmə aparılır. Bu halda, kompozit materialın tərkibindəki alüminium ərintisinin qaynama temperaturunu aşan bir temperaturda kompozit materialın daxili axınının əvvəlcədən qızdırılması faydalıdır. Metodun bir variantında, çərçivə kompozit materialından hazırlanmış daxili qayış və ya onun bir variantı alüminium və ya alüminium ərintisi ilə bir palto (palto) ilə örtülə bilər.

**TƏDQİQATIN METODU**

**Porşen və Keramik Materialların Xüsusiyyətləri**

Məqalədə, porşen materialı üçün aluminiyum ərintisi seçildi. Porşen, daxili yanma mühərrikinin ən əsas hisslərindən biridir. Bu hissə, silindirdəki qazın yanma təzyiqinin yaranmasını dəstəkləyir. Ümumilikdə, onlar qaz təzyiqini dəstəkləyən dəmir ərinitlərindən hazırlanırlar. Bu gün, onlar mühərrikdə düzgün yanma, tarazlığı və çəkini saxlamaq üçün aluminiyum ərinitilərindən hazırlanırlar və bu layihədə $MgZrO_3$, silikon-karbid və titanyum-karbid kimi keramik materiallardan istifadə edilir. Materialın xüsusiyyətləri aşağıdakı Cədvəl 1-də göstərilmişdir:

**Cədvəl 1.**

| Material | Al ərinitisi | $MgZrO_3$ | Silikon-Karbid | Titanim-Karbid |
|---|---|---|---|---|
| **Sıxlıq(kg/m3)** | 2700 | 5600 | 3200 | 4500 |
| **İstidən genişlənmə ($10^{-6}$ (C))** | 21 | 8 | 4 | 8 |
| **İstilikkeçirmə (w/mm, C)** | 170 | 2 x $10^{-4}$ | 120 | 110 |
| **Possion nisbəti (μ)** | 0,33 | 0,2 | 0,14 | 0,19 |
| **Xüsusi İstilik tutumu (J/kg*C)** | 910 | 600 x $10^3$ | 750 | 831 |

Örtük çəkilməmiş porşenin analizi

Bu analiz üçün ANSYS proqramından istifadə etdik, porşendən olan təbii halda istilik analizini aparırıq. Porşen materialını alüminium ərintisi olaraq götürdük. Bu analiz örtükdən əvvəl və örtükdən sonra aparıldı. Biz temperatur intervalını 2000 $^0$ C götürdük. Temperatur, ümumi istilik axını üçün həllər əldə etdik.

Şəkil 2. İstilik axınının örtük çəkilməmiş porşendə paylanması




**Keramika materialları ilə örtülmüş porşenin təhlili**

Bu layihədə örtülmüş porşen üzərində dayanıqlı-istilik analizi araşdırılır. Üç növ keramika materialı alüminium ərintisi porşeninin yuxarı hissəsinə örtülmüşdür.

Keramika materialları – $MgZrO_3$, Titan-karbid və silisium-karbiddir.

**$MgZrO_3$ ilə örtülmüş alüminium ərintili porşeninin təhlili:**

Bu analizdə materialı hissənin gövdəsinə (porşen) alüminium ərintisi kimi təyin edilir və $MgZrO_3$ materialı təyin edilir.Örtük səthlərinə və həmçinin həndəsi detallarında 1 mm örtük qalınlığını əlavə edilir. Tələb olunan ölçüləri meshing edilir və mesh üçün həll edilir.

Sərhəd şərtləri tətbiq edilir və porşenin yuxarı hissəsi seçilir. Temperatur dəyəri 20 x $10^3$ °C olaraq daxil edilir və yan tərəfləri seçilir.Porşenin konveksiya dəyərlərini 2300 w/$m^2$ c kimi daxil edilir.

"Solution Network" üzərinə sağ vurulur, temperaturu və ümumi istilik axını daxil edilir və sonra həll edilir.

Nəticələr üçün temperatur və sonra istilik axını üzərinə kliklənir.

Porşenin analizi üçün aşağıdakı əməliyyatlar həyata keçirildi.

Əvvəlcə, mühəndislik məlumatları bölməsində porşen materialının, keramik örtüyün və bağ qatının bütün texnoloji və mexaniki xüsusiyyətləri müəyyənləşdirildi.

Üst qat qalınlığı və cilalanın diametri, porşenin modellənməsi SolidWorks proqramında dizayn edildi.Sonra, model analizi bölməsində materiallar növləri təyin edildi.Üst səthdə, yanma səthində temperaturu araşdırmaq üçün konveksiya sərhəd şəraitləri tətbiq edildi.

Piston gövdədən, sızdırmazlıq halqalarından və birləşdirici çubuqla əlaqəni təmin edən birləşmədən ibarətdir. Gövdə və çəngəllər partlayıcı mühərriklərdə yüksək temperaturlara tab gətirmək üçün uzun ömür-lü lehimli poladdan hazırlanır. Seqmentlər dəzgahın və mayenin növündən və temperaturundan asılı olaraq çətənə, keçə, çuqun, polad, tunc, dəri və rezindən hazırlana bilər. Hidravlik cihazlarda sızdırmazlığı təmin etmək üçün rezin və dəridən hazırlanmış seqmentlər istifadə olunur. Porşenlərdəki ən mühüm problem onla-rın gövdə və halqalarının aşınması səbəbindən sızdırmazlığını itirmələridir. Bu səbəbdən xüsusilə mühərrik porşenlərinin silindrə sürtünən yüksək təzyiqdə işləyən səthləri hərtərəfli işlənir və istilik emalı ilə cilalanır və bərkidilir. Pistonlar ya mühərrik blokunda, ya da blokun içərisində silindr laynerində olur. Mühərrik iş-ləyərkən temperaturun

artması səbəbindən pistonda mexaniki aşınma baş verir. Bu aşınmaları aradan qal-dırmaq üçün pistona oval forma verilir. Bu oval forma pistondan pistona dəyişir. Oval forma, porşen pin dəliklərinə uyğun olaraq bir neçə mikron kiçikdir (1 mikron 1 millimetrin 1/1000 hissəsidir). Bu oval forma aşınmanı minimuma endirir və mühərrikin ömrünü artırır. Oval forma vermək üçün çox həssas CNC tezgahları istifadə olunur. Porşenlərin başı adlanan yanacağın vurulduğu yerdə temperatur yubka adlanan krank şaftına yaxın tərəfdən daha isti olur və bu fərq mühərrik işləyərkən məhsuldarlığa təsir etməz. Porşen başlığı istehsalda ətək tərəfdən daha kiçik diametrdə işlənir. Piston ölçüləri baxımından böyük investisi-yalar və mühəndislik tələb edir.

Məqalədə porşen SolidWorks proqramında dizayn edildi. Porşen modelini Solidworks proqramında yaradıldıqdan sonra faylı “IGES” formatında saxlanıldı və işin davamını ANSYS proqramında aparıldı. Şəkil 4 və 5-də göstərilən porşenin 2D və 3D diaqramlarıdır.

Poşenə örtüyün çəkilməsi:

Porşen üst səthində 1mm qalınlığında örtük tətbiq olunur. Örtükçəkmə, hissənin dizaynı bitdikdən sonra SolidWorks proqramında porşen üzərinə tətbiq olundu. “Wire frame”səth dizaynına klikləyərək seçilir. Plan seçilir, porşenin kənarlarında xətt çəkilir və sonra şaft alətindən istifadə edərək xətti döndürülür. Porşenə örtük çəkildikdən sonra şəkil 3-də təsvir edilmişdir

**Şəkil 6. Örtük çəkilmiş porşenin görünüşü**



**Silikon karbidlə örtülmüş alüminium ərintisindən olan porşenlərin təhlili**

Bu tədqiqat işində hissənin gövdəsinə (porşen) alüminium ərintisi kimi təyin edilir və silisium karbid materialı örtük səthləri və həmçinin örtük qalınlığı 1 mm olaraq əlavə edilir.

**Titan karbidlə örtük çəkilmiş alüminium ərintili porşenlərin analizi**

MU analizdəmaterial hissənin gövdəsinə (porşen) alüminium ərintisi kimi təyin edilir və titan karbid materialı örtük sahləri və həmçinin örtük qalınlığı 1 mm əlavə edilir. Eyni proses ənənəvi qaydada Titan karbid üçün də təkrar edilir.

Porşen materialı olaraq alüminium ərintisi seçilmiş və 1 mm qalınlığında silisium karbid, titan karbid və Mgzro3 kimi örtük materialları ilə örtülməsi ilə pistonun sabit vəziyyət-termik analizi aparılmışdır. Porşenin yuxarı hissəsində 2000 °C tətbiq olunur. Örtük çəkilməmiş porşenlə müqayisədə örtük çəkilmiş porşen tacındakı temperaturun yüksək olduğu müşahidə edildi.

Yuxarıdakı cədvəldən göründüyü kimi, alüminium ərintisi ilə hazırlanmış porşendə maksimum temperatur və istilik paylanması $MgZrO_3$ örtüyünün çəkilməsi zamanı əldə olundu. Nəticələrdən göründüyü kimi, titan karbid də silisium karbidlə müqayisədə örtük üçün ən uyğun materialdır. Beləliklə, maqnezium-sirkonium porşendə istifadə olunacaq ən uyğun materialdır.

**ALINMIŞ NƏTİCƏLƏR**

1. Məqalədə alüminium ərintisindən və eyni amanda müxtəlif keramika materiallarından olan örtük çəkilməmiş və örtük çəkilmiş porşen üzərində analizlər uğurla həyata keçirildi

2. Müşahidə olundu ki, örtük çəkilməmiş porşen tacının temperaturu örtük çəkilmiş porşenlə müqayisədə yüksəkdir və həmçinin örtük qalınlığı artdıqca temperatur da artır.

3. Tədqiqatımızda alüminium ərintisindən hazırlanmış porşendə maksimum temperatur və istilik paylanması $MgZrO_3$ örtüyünün çəkilməsi zamanı əldə olundu.

**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT**

1. Canmirzəyev A.C. Avtomobillərin texniki istismarı. Bakı, BDU, 1998, 386 s.
2. Ələkbərov C.Q. Maşınların etibarlılığı (dərs vəsaiti). Kirovabad, AKTİ, 1974, 145 s.
3. Əliyev Q.İ. Kənd təsərrüfatı texnikasının saxlanması (dərs vəsaiti). Bakı, «Azərnəşr», 1986.
4. ttps://www.jstor.org/stable/i40193576 2009-2021•SAE International Journal of Engines

# POLİMER BORULARIN İSTEHSAL TEXNOLOGİYASI VƏ SƏMƏRƏLİ TƏKLİFLƏRİN İŞLƏNİLMƏSİ

**VURĞUN QƏHRƏMANOV RƏQSANƏ MƏMMƏDOVA**
**vqahremanov@beu.edu.az rmemmedova6@std.beu.edu.az**

**SALEH DADAŞOV**
BAKI MÜHƏNDİSLİK UNİVERSİTETİ
MÜHƏNDİSLİK/MÜHƏNDİSLİK ELMLƏRİ
sdadashov1@std.beu.edu.az
XIRDALAN /AZƏRBAYCAN

**XÜLASƏ**

Bu gün plastik məhsullar texnoloji yeniliklərlə birlikdə həyatımı-zın ayrılmaz hissələrinə çevrilib. Bunun nəticəsi olaraq insanlar artıq məişətdə bir vaxt-lar su çəkilişləri zamanı istifadə etdikləri metal borulardan daha ucuz, kimyəvi və təbii təsirlərə davamlı, asan istifadə oluna bilən plastik borulara üstünlük verməyə başlamış-dır. Bu gün plastik məhsullar texnoloji yeniliklərlə birlikdə həyatımızın ayrılmaz hissə-lərinə çevrilib. Bunun nəticəsi olaraq insanlar artıq məişətdə bir vaxtlar su çəkilişləri za-manı istifadə etdikləri metal borulardan daha ucuz, kimyavi və təbii təsirlərə davamlı, asan istifadə oluna bilən plastik borulara üstünlük verməyə başlamışdır. Plastik borular içərisində Polipropilen PPR borulan ən son yeni məhsullardan hesab olunur. STP-nin Polimer Məmulatlar zavodu isti və soyuq su təchizatı sistemlərinin quraşdırılmasında is-tifadə olunan yüksək keyfiyyətli Polipropilen PPR borular da istehsal olunur.

**AÇAR SÖZLƏR:** qurğuşun, filiz, konsentrat, mədən, elektroliz, dissoasiya

**SUMMARY**

Today, plastic products have become an integral part of our life along with technological innovations. As a result of this, people have already begun to prefer plastic pipes that are cheaper, resistant to chemical and natural effects, and easy to use, than the metal pipes they once used for water drawing. Today, along with technological innovations, plastic products have become integral parts of our lives. As a result of this, people have already begun to prefer plastic pipes that are cheaper, resistant to chemical and natural effects, and easy to use, than the metal pipes they once used for water drawing. Among the plastic pipes, Polypropylene PPR pipes are considered to be one of the latest new products. STP's Polymer Products plant also produces high-quality Polypropylene PPR pipes used in the installation of hot and cold water supply systems.

**KEY WORDS:** lead, ore, concentrate, mine, electrolysis, dissociation

## GİRİŞ

Keyfiyyət: İstehsal prosesi yüksək keyfiyyətli xammal vasitəsi ilə həyata keçirilir və DİN, TSE, ГОСТ, ISO 9001 standardlarının tələblərinə cavab verir.

Etibarlılıq: Bu borulardan yığılmış sistemin yüksək temperatur və təzyiq müqaviməti var.

Borunun istismar müddəti: Bu boruların 50 il zəmanəti var və bu istifadə olunan tem-peraturdan asılı olaraq dəyişə bilər.

Korroziya və kimyəvi müqavimət: Borular korroziyaya və aqressiv mühitə davamlı-dır.

Axın sürəti: Hamar daxili səthi olduğuna görə bu borular axın sürətini artırır.

Ekoloji təmizlik: İstifadə olunan Polipropilen su ilə reaksiyaya girmir, buna görə də suya əlavə dad qatmır. Daxili səthi sürüşkən olduğundan bakteriyaların, üzvü və qeyri-üzvü çöküntülərin yaranması müşahidə olunmur.

## ŞÜŞƏ LİFLİ ÜÇQAT PPRC FİBER BORULAR

PPR fiber borular yüngül və hamar olması, daxili səthinin sürüş-kən və parlaq olması, kirəc bağlamaması, paslanmaması, gigiyenik olması, quraşdırılma-sının asan olması kimi üstün cəhətləri ilə plastik boru sahəsində əhəmiyyətli yer tutaraq bina içi soyuq və isti su təsisatlarında istifadə edilməyə başlamışdır. Plastik kütlələrin emalı sənayesində çox əhəmiyyətli proseslərdən biri də “Random polipropilen”nin (PPR) əldə olunması və onun sənayeyə tətbiqidir. Bu xam maddədən hazırlanan borular hazırda müasir həyatda geniş istifadə olunur. PPR fiber borular yüngül və hamar olması, daxili səthinin sürüşkən və parlaq olması, kirəc bağlamaması, paslanmaması, gigiyenik olması, quraşdırılmasının asan olması kimi üstün cəhətləri ilə plastik boru sahəsində əhəmiyyətli yer tutaraq bina içi soyuq və isti su təsisatlarında istifadə edilm əyə başlamışdır.

Cədvəl 1.

İstehsal olunmuş şüşə lifli boruların parametrləri

| Xarici diametri, D mm | Diametrdən kənara çıxma, mm | Divarın qalınlığı, mm | Divar qalınlığından kənaraçıxma, mm |
|---|---|---|---|
| 16 | +0,3 | 2,7 | +0,3 |
| 20 | +0,3 | 3,4 | +0,4 |
| 25 | +0,3 | 4,2 | +0,5 |
| 32 | +0,3 | 5,4 | +0,6 |
| 40 | +0,4 | 6,7 | +0,7 |
| 50 | +0,5 | 8,3 | +0,8 |
| 63 | +0,6 | 10,5 | +1,0 |
| 75 | +0,7 | 12,5 | +1,2 |

## PE100 BORULARI

PE 100 polietilen boruları plastik boru istehsalında yeni mərhələ-nin başlanğıcı hesab olunur. Bu borular yüksək təzyiqə davamlılığı ile seçilən ən müasir polietilen (PE) borular hesab olunur. PE 100 polietilen boruları plastik boru istehsalında yeni mərhələnin başlanğıcı hesab olunur. Bu borular yüksək təzyiqə davamlılığı ile seçi-lən ən müasir polietilen (PE) borular hesab olunur. Bu borular digər markalı (PE 63, PE 80) borular ilə müqayisədə daha az divar qalınlığına və daha üstün mexaniki xassələrə malikdirlər. Sumqayıt Texnologiyalar Parkının Polimer məmulatlar zavodu təzyiqə da-vamlı PE100 borularını diametri 16-1200 mm və 6,3-25 atmosfer gücündə istehsalını edə bilir. PE 100 boruları aşağıdakı sahələrdə tədbiq olunur:

- Yeraltı, yerüstü içməli və texniki məqsədlər üçün su şəbəkələri;
- Dəniz sularının axıdılması sistemləri;
- Su drenaj sistemi;
- Tarla suvarma sistemləri;
- Neft yataqları;
- Kimya və neft-kimya sənayesi;
- Bina və sənaye obyektlərinin tikintisi;
- Mədən sənayesi;
- Magistral və lokal təbii qaz xətlərinin çəkilişi.

## KORUGE BORULAR

Bu borular həm elektrik, telekommunikasiya və digər ötürücü xət-lərin təhlükəsizliyinin təminatında, həm də təzyiqsiz çirkab, qrunt və yağış sularının axı dılmasında geniş istifadə olunur. Polimer Məmulatlar Zavodu yeni növ polimer koruge borular istehsal edir. Bu borular digər polimer borulardan fərqli olaraq bir neçə sahəni əhatə edir. Səthinin möhkəm və çəkisinin yüngül olması onları əvəzolunmaz edir. Bu borular həm elektrik, telekommunikasiya və digər ötürücü xətlərin təhlükəsizliyinin tə-minatında, həm də təzyiqsiz çirkab, qrunt və yağış sularının axıdılmasında geniş istifadə olunur. 1-15 metr dərinlikdə istifadə oluna bilən bu borular fiziki, kimyəvi və texniki tə-sirlərə qarşı davamlıdır. Həmçinin, koruge boruların tətbiqi mühəndis-texniki qurğuların istismar müddətini uzadır, vaxt itkisini minimuma endirir. Tətbiq sahəsindən asılı olaraq STP markalı koruge borular rənglərinə görə üç yerə bölünür: qırmızı (elektrik xətləri üçün), göy (telekommunikasiya xətləri üçün), qara (diger məqsədler üçün). Hamar daxili divar boru ilə sürtünməni minimuma endirir.

## İKİQAT KORUGE POLİPROPİLEN BORULAR

Polipropilendən hazırlanmış ikiqat koruge borular xarici suötürmə sistemlərində, kanalizasiya, yağış və qrunt sularını axıtmaq üçün nəzərdə tutulmuşdur. Bu universal konstruksiyalı borulardan praktiki olaraq bütün sahələrdə sənaye, mülki, kənd təsərrüfatı, hidrotexniki və su qurğuları, dəmir və avtomobil yollarının tikintisində istifadə olunur. Polipropilendən hazırlanmış ikiqat koruge borular xarici suötürmə sis-temlərində, kanalizasiya, yağış və qrunt sularını axıtmaq üçün nəzərdə tutulmuşdur. Bu universal konstruksiyalı borulardan praktiki olaraq bütün sahələrdə sənaye, mülki, kənd təsərrüfatı, hidrotexniki və su qurğuları, dəmir və avtomobil yollarının tikintisində istifa-də olunur.

## PE 100 BORULAR ÜÇÜN TÖKMƏ FİTİNQLƏR

Tökmə fitinqlər-polietilenin (PE100) təzyiq və temperatur altında qəliblərə tökülməsi üsulu ilə istehsal olunur. Fitinqlər boru sisteminin istiqamətini dəyiş-mək, bərabər paylanma və ya başqa diametrə çevirmək istədikdə istifadə olunur. Tökmə fitinqlər-polietilenin (PE100) təzyiq və temperatur altında qəliblərə tökülməsi üsulu ilə istehsal olunur. Fitinqlər boru sisteminin istiqamətini dəyişmək, bərabər paylanma və ya başqa diametrə çevirmək istədikdə istifadə olunur. Bu fitinqlərin əhəmiyyətli üstünlüyü istehsalının asanlığı və az məsrəfli olmasıdır. Quraşdırılması qaynaqla birləşdirmə ilə edilir ki, bu da maliyyə xərclərini azaldır və əlavə xərclərdən azad edir. PE 100-dən ha-zırlanmış 63-315 mm diametrində olan dirsəklər, flanslar, keçidlər, üçlüklər və qapayıcı-lar su və qaz xətlərində istifadə olunur.



## ALINAN NƏTİCƏLƏR

1. Plastik boru sahəsində xammalın ən mühüm xüsusiyyəti istiliyə və kimyəvi tə-sirlərə qarşı göstərdiyi yüksək müqavimətdir. Bu müqavimət sayəsində PP-R xammalın-dan hazırlanan PPR boru soyuq və isti su təsisatlarında uğurla istifadə edilir.

2. PPR borular rəng, dad və qoxu verməyən üstün xüsusiyyətlərə malik olur, onun istilik universallığı xüsusi əhəmiyyət kəsb edir. "Random polipropilen"dən hazırlanmış borular +95°C-yə qədər temperatur aralığında istismar olunur. Materialın elastikliyi sə-bəbindən bu borularda su donduqda onları çatlatmır.

## İSTİFADƏ OLUNAN ƏDƏBİYYATLAR

1. https://www.stp.az/mehsullar
2. В.Е.Гуль «Полимерные плёночные материалы», М, 1976 г.
3. 8. В.Е.Гуль «Полимерные материалы», М, 1976

# YASTIQ İSTEHSALINDA İSTİFADƏ OLUNAN POLADLARIN TƏDQİQİ

**VURĞUN QƏHRƏMANOV RƏŞAD FƏRHADOV**
vqahremanov@beu.edu.az rferhadov@std.beu.edu.az

**NİCAT ABDULLAYEV**
BAKI MÜHƏNDİSLİK UNİVERSİTETİ
MÜHƏNDİSLİK/MÜHƏNDİSLİK ELMLƏRİ
nabdullayev4@std.beu.edu.az
XIRDALAN /AZƏRBAYCAN

**XÜLASƏ**

Yastıqların istehsalı üçün istifadə olunan yerli və xarici istehsalın istiliyə və korroziyaya davamlı poladlardan geniş miqyasda istifadə olunur. Geniş tətbiq olunan poladlara olan tələblər, iş şəraitindən asılı olaraq onların təsnifatı və istehsal üsulu təsvir edilmişdir. Poladların kimyəvi tərkibi və əritmə prinsipləri göstərilir, xassələrinin təhlili aparılır. Keramika materiallarının xüsusiyyətləri və aerokosmik sənayedə istifadə olunan ryastıqlar üçün istifadə imkanları nəzərdən keçirilir.

**AÇAR SÖZLƏR**: polad, yastıq, karbid, mikrostruktur, bərklik, istiliyə davamlılıq, keramika materialları.

**SUMMARY**

Heat and corrosion-resistant steels of local and foreign production, which are used for the production of pillows, are widely used. The requirements for widely used steels, their classification and production method depending on working conditions are described. The chemical composition and melting principles of steels are shown, and their properties are analyzed. The properties of ceramic materials and their potential applications for coatings used in the aerospace industry are reviewed.

**KEY WORDS:** steel, bearing, carbide, microstructure, hardness, heat resistance, ceramic materials.

## GİRİŞ

Müxtəlif sənaye sahələrində istifadə olunan diyirlənən ryastıqlar, dövri yüklər altında işləyərkən müxtəlif növ təzyiqlərə məruz qalan kritik hissələrdir. Keyfiyyət diyirlənən yastıqların hissələri onların dizaynı, istehsal texnologiyası və istifadə olunan materialın xüsusiyyətləri ilə müəyyən edilir. Aviasiya və kosmik sənayedə xüsusi diyirlənən yastıqlar üçün materialların keyfiyyətinə olan tələblər maşınqayırmanın digər sahələrində istifadə olunan materiallara olan tələbləri əhəmiyyətli dərəcədə üstələyir. Davamlılığı müəyyən edən əsas performans xüsusiyyəti təyyarə yastıqları, təmasda dayanıqlıdır.

## TƏDQİQATIN METODU

İş şəraitində təmas yorğunluğuna müqavimət göstərmək üçün material dəyişən yüklərlə yüklənir. Bu xüsusiyyət struktura həssasdır və əsasən zəriflik dərəcəsindən (xüsusilə silikatlar və oksidlər üçün), karbid heterojenliyindən və poladın formalaşmış mikro strukturundan asılıdır.

Maşın hissələrində aparıcı poladların istehsalında vakuum induksiya əriməsi üsulu ilə istehsal olunan poladlardan istifadə edilir.

Məsul hissələrin hazırlanmasında istifadə olunan poladların çirklənməsini qarşısı alınmalıdır. Yastıq hissələrinin istehsal prosesində termiki emal texnologiyasına xüsusi diqqət yetirilir, çünki yaranan mikro quruluş hazır məhsulun keyfiyyətini müəyyən edir. Soyutma optimal temperaturdan təmin etmək üçün kifayət qədər saxlama müddəti ilə təyin olundu .Mexaniki xassələr, istifadə olunan poladda martensitdən ibarət strukturun formalaşmasını təmin edir. İstehsal olunan yastıqın ölçüləri və dəqiqlik sinfi tənzimlənməsi kəmiyyətə böyük dərəcədə təsir göstərir. Buna görə də, austenit fazasının tərkibini minimuma endirmək üçün parçalanma mexanizmini həyata keçirmək tələb olunur.



**Şəkil 1.**

Poladın mikro strukturunda termiki emal prosesinin gücləndirilməsi zamanı qızma şəraitinə və temperatur sahəsindəki dəyişikliklərə nəzarət etmək xüsusilə vacibdir.

Bəzi müəlliflərin apardığı tədqiqatlarda [1–4] əsasən, çox istifadə edilən poladlar iş şəraitindən asılı olaraq təsnif edilir: – aşağı temperaturda (300 °C-ə qədər) və aqressiv olmayan mühitlərdə işləyən poladlar. Belə poladlara adətən aşağı və orta martensit strukturlu poladları daxildir; – aqressiv mühitlər və həddindən artıq temperatur yükləri (500 °C-də qısamüddətli) şəraitində işləmək. Bu poladlara yüksək korroziyaya və istiliyədavamlı daşıyıcı poladlar daxildir.

Mühərriklərin, eləcə də yeni nəsil mülki və hərbi təyinatlı məmulatların təkmilləşdirilməsi yüksək dövrəli kontakt-yorğun yükləmə şəraitində işləyərkən yastıqların konstruksiyalarını daim təkmilləşdirmək, onların yükdaşıma qabiliyyətini, davamlılığını və etibarlılığını artırmaq zərurətini məsələləri gündəmə çıxır. Hal-hazırda, təyyarə daşıyıcı hissələrinin istehsalında, ənənəvi olaraq istifadə olunan poladlarla yanaşı, keramika materialları da geniş istifadə olunur (hibrid yastıqlar) təmas yorğunluğu yükləmə şəraitində fərqli materialların sürtünmə qarşılıqlı təsiri yeni material və konstruksiyaların işlənməsini mümkün edir. Müxtəlif təyinatlı aqreqatların və yeni nəslin mühərriklərinin istehsalında zəruri tələblərə cavab verən belə xüsusiyyətlərə malik yastıqlargeniş tətbiq olunur. İstifadə olunan yeni rəqabətli yerli poladların inkişafı müxtəlif məqsədlər üçün yastıqların istehsalı üçün müasir materialşünaslığın prioritet vəzifələrindən biridir. Hazırda Elmi-

Tədqiqat Mərkəzində “2030-cu ilə qədər materialların və onların emalı texnologiyalarının inkişafına dair Strateji istiqamətlər” çərçivəsində idxalın əvəzlənməsi üzrə tapşırıqlar icra edilir.

İstiliyədavamlı yastıqk poladları 200-300 °C temperatur diapazonunda işləyən, ərazidə sürtkü yağının daimi olması şərti ilə diyirlənən yastıqlar "sürtünmə" şəraitində işləyərkən görüşmə sahəsi yüksək istilik müqavimətinə malik olmalıdır. Sürtkü yağının təmas zonasından sıxılmasına kömək edən xarici amillər həddindən artıq yağların meydana gəlməsinə səbəb olur. İş şəraiti və iş temperaturunun 500 °C-ə qədər artırılması. Müəyyən bir temperaturda struktur və xassələri sabitləşdirmək üçün dispersiya ilə bərkiməyə məruz qalan kompleks xassəli istiliyədavamlı poladlar istifadə olunur.



**Şəkil 2. Müxtəlif tərkibli poladlardan hazırlanan yastıqlar**

Bu poladların son emalında istifadə olunan temperatur adətən >500 °C-dir ki, bu da yüksək istilik müqavimətini təmin edir.

Qaz turbinli mühərriklər üçün yastlq istehsalı üçün istifadə edilən əsas istiliyədavamlı poladların növlərinin təhlili göstərdi ki, yerli aviasiya sənayesində martensit sinifli alət poladı EI347 (8Х4В9Ф2), xarici ölkələrdə isə M50 markalı poladdan ən çox istifadə olunur. M50 poladının kimyəvi tərkibi praktiki olaraq dəyişməz olaraq digər ölkələrdə istiliyədavamlı dayaq poladlarının inkişafı üçün əsas götürülür. Məsələn, Fransada 80DCV40 poladdır [5], Almaniyada 80MoCrV4216 poladdır [6] . Yastıq tədqiqatında çoxillik təcrübə göstərir ki, M50 poladı EI347 poladı ilə müqayisədə daha yüksək davamlılığa malik bir material kimi özünü göstərmişdir. Rəqabətli istiliyədavamlı məişət avadanlıqlarının yastıqlarını istehsal etmək üçün "Kurçatov İnstitutu" Milli Tədqiqat Mərkəzi - VIAM VKS241 tədqiqatlar aparılır [6],

Cədvəl 1-də istiyədözümlü poladların tərkibi göstərilmişdir

**Cədvəl 1. İstiliyədavamlı daşıyıcı poladların kimyəvi tərkibi**

| Polad | Elementlərin miqdarı, % (kütlə üzrə) | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Cr | C | Mo | W | Ni | P | Cu | S | V | Nb | Ta | Mn | Si |
| | | | | | Daha çox | | | | | | | | |
| ЭИ347 | 4,0-4,6 | 0,70-0,80 | ≤0,8 | 8,5-9,5 | 0,35 | 0,030 | 0,25 | 0,015 | 1,4-1,7 | - | - | 0,70-0,80 | ≤0,25 |
| ВКС241 | 4,5-5,5 | 0,70-0,85 | 3,0-3,5 | 1,0-1,5 | 0,15-0,40 | | | | 0,5-1,0 | 0,1-0,3 | 0,05-0,15 | 0,10-0,40 | 0,30-0,50 |
| M50 | 3,75-4,25 | 0,77-0,85 | 4,0-4,5 | - | 0,10 | 0,015 | - | 0,015 | 0,9-1,1 | - | - | ≤0,35 | ≤0,25 |
| 80MoCrV4216 | 3,75-4,25 | 0,77-0,85 | 4,0-4,5 | - | 0,10 | 0,015 | - | 0,015 | 0,9-1,1 | - | - | ≤0,35 | ≤0,25 |
| 80DCV40 | 3,75-4,50 | 0,77-0,85 | 3,75-4,50 | 0,25 | 0,20 | 0,015 | 0,20 | 0,015 | 0,9-1,2 | - | - | 0,10-0,40 | 0,10-0,40 |

Hazırda Rusiyada korroziyaya davamlı podşipniklər 95X18 və 110X18M poladdan hazırlanır. 95X18 polad tablandırma və aşağı ttabəksiltmədən sonra 58-60 HRC bərkliyə və qənaətbəxş korroziyaya davamlılığa malikdir, lakin temperatur 500 ° C-ə qədər yüksəldikdə, formalaşan strukturun qeyri-sabitliyi səbəbindən bərklik və korroziyaya qarşı müqavimətdə əhəmiyyətli bir azalma baş verir. 110X18M Markalı polad hazırlanmışdır ki, bu da daha yüksək istilik müqavimətinə (400 °C-ə qədər temperaturda) və molibdenin əlavə edilməsi səbəbindən yüksək korroziyaya davamlılığa malikdir [3].

Aşağı karbon və yüksək kobalt tərkibinə görə, diffuziya və dispersiya sərtləşməsi proseslərini gücləndirərək, 500 ° C temperaturda bu poladlarda aktiv səth bərkiməsi baş verir ki, bu da yüksək istilik müqavimətini formalaşdırır.

Korroziyaya davamlı yastıqlar üçün yeni nəsil materialların işlənib hazırlanmasında əsas istiqamət azot tərkibinə malik olan korroziyaya davamlı poladların hazırlanmasıdır.

Normal şəraitdə həllolma qabiliyyətini məhdudlaşdırır. Azot, karbon kimi, poladı gücləndirir, lakin ciddi kövrəkliyə səbəb olmur. Bundan əlavə, azot yüksək xromlu δ-ferritin əmələ gəlməsinə maneə törədir.

Azotun metala maksimum həll olunma qabiliyyətindən artıq miqdarda daxil edilməsi, ərimə zamanı mümkündür.

Tərkibində super tarazlıq azot olan poladların istehsalı üçün ən çox istifadə edilən üsullar təzyiq altında elektroposa altında və plazma-qövslə yenidən əridilməsidir.

Tərkibində azot olan korroziyaya davamlı martensit sinifli poladlar quruluşda incə dispers hissəciklər əmələ gəldiyinə görə əsasən yüksək dəqiqlikli yastıqların istehsalı üçün istifadə olunur.

Xrom və vanadiumun elementlərinin güclü karbid əmələ gəitməsi səbəbindən, bu tip poladlar yüksək bərkliyə malikdir (>58 HRC); gövdənin və yuvarlanan dəstəyin qarşılıqlı təsiri zamanı səs-küy və titrəyişin olmaması səbəbindən geniş tətbiq olunur.

Azotlu korroziyaya davamlı poladların kimyəvi tərkibi cədvəl 3-də təqdim olunur

**Cədvəl 3. Korroziyaya davamlı poladların kimyəvi tərkibi**

| Polad | Elementlərin miqdarı, % (kütlə üzrə) | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | **C** | **Si** | **Mn** | **Cr** | **Ni** | **Mo** | **N** | **V** | **La** | **Y** |
| Cronidur 30 | 0,25–0,35 | 1,0 | 1,0 | 14,0–16,0 | 0,5 | 0,85–1,1 | 0,30–0,50 | - | - | - |
| XD15NW | 0,37–0,45 | 0,6 | 0,6 | 15,0–16,5 | ≤0,3 | 1,50–1,90 | 0,16–0,25 | - | - | - |
| N360 | 0,30 | 0,6 | 0,4 | 15,0 | - | 1,00 | 0,40 | - | - | |
| BHC-78 | 0,30–0,35 | 0,5–1,0 | 0,2–0,5 | 13,5–15,5 | 0,3–1,0 | 1,00 | 0,25–0,35 | 0,2–0,3 | ≤0,03 | ≤0,03 |

## Yastıqların hazırlanması üçün poladları

Diyirlənən gövdələrin və yastıqların bir-birindən fərqli materialları olan hibrid yastıqlar üçün müxtəlif strukturlu keramikadan istifadə etməkdir. Keramika materialının əsas xüsusiyyətləri yüksəkdir gücü, bərkliyi, korroziyaya davamlılığı və aşağı sıxlığı, yastıqların daha yüksək fırlanma sürətlərində və temperaturda işləməsinə imkan verir. Eyni zamanda, istilik əmələ gəlməsi, həmçinin maddi gərginliyin və yastıqların aşınmasının azalması səbəbindən xidmət müddəti artırıla bilər. Yuvarlanan elementlərin və yüksək bucaq sürətində fırlanan qəfəsin kütləsinin nisbətən kiçik olması belə mərkəzdənqaçma yüklərinin (titrəyişlərin) səviyyəsini əhəmiyyətli dərəcədə azaldır, bu da öz növbəsində əvvəlcədən yükləmə səviyyəsini (montaj) azaltmağa imkan verir.

## Nəticələr

Hal-hazırda, xüsusi təyinatlı yastıqların istehsalı üçün, iş şəraitindən asılı olaraq, istiliyədavamlı, korroziyaya davamlı və tablansırılmış poladlar, həmçinin keramika materialları ən çox istifadə olunur..

Aqressiv korroziyalı mühitlərdə işləmək üçün Onların tərkibində yüksək karbon konsentrasiyasın olmasına baxmayaraq korroziyaya davamlı polad markaları 95X18 və 110X18M, xaricdə isə 440B və 440C (440C Modified) markalı poladdan istifadə olunur.

Tərkibində 18% xrom olan poladlardan hazırlanan yastıqlarda mexaniki xassələr xeyli yüksək alınır.

**İsttifadə edilmiş ədəbiyyatlar**

1. Каблов Е.Н. Из чего сделать будущее? Материалы нового поколения, технологии их создания и переработки – основа инноваций // Крылья Родины. 2016. № 5. С. 8–18.
2. Каблов Е.Н. России нужны материалы нового поколения // Редкие земли. 2014. № 3. С. 8–13.
3. Каблов Е.Н. Тенденции и ориентиры инновационного развития России: сб. науч.-информ. материалов. 3-е изд. М.: ВИАМ, 2015. 720 с.
4. Каблов Е.Н., Бакрадзе М.М., Громов В.И., Вознесенская Н.М., Якушева Н.А. Новые высокопрочные конструкционные и коррозионностойкие стали для аэрокосмической техники разработки ФГУП «ВИАМ» (обзор) // Авиационные материалы и технологии. 2020. № 1 (58). С. 3–11. DOI: 10.18577/2071-9140-2020-0-1-3-11.
5. Севальнев Г.С., Анцыферова М.В., Дульнев К.В., Севальнева Т.Г., Власов И.И. Влияние концентрации азота на структуру и свойства экономнолегированной конструкционной стали // Авиационные материалы и технологии. 2020. № 2 (59). С. 10–16. DOI: 10.18577/2071-9140-2020-0-2-10-1.
6. Удод К.А., Трофименко Н.Н., Романенко Д.Н., Севальнев Г.С. Перспективы развития конструкционных сталей, легированных алюминием // Авиационные материалы и технологии. 2019. № 3 (56). С. 9–13. DOI: 10.18577/2071-9140-2019-0-3-9-13.

# DƏYİŞƏN EN KƏSİKLİ MİLLƏRİN STATİK ANALİZİ

**NATİQ RZAYEV SƏMƏNDƏR**
Bakı Mühəndislik Universiteti
Mühəndislik/Mühəndislik elmləri
*nzayev@beu.edu.az*
XIRDALAN, AZƏRBAYCAN

**ƏLİ MƏMMƏDOV VALEH**
Bakı Mühəndislik Universiteti
Mühəndislik/Mühəndislik elmləri
ememmedov25@std.beu.edu.az
XIRDALAN, AZƏRBAYCAN

**XÜLASƏ**

*Məqalədə dəyişən en kəsikli, iki pilləli tirin statik analizi aparılıb. İşin əsas məqsədi nümunələrin pillələr üzrə ölçü dəyişməsinin, milin dayanıqlığına təsirini qiymətləndirməkdir. Bunun üçün pillələrinin uzunluqları 0,5, 1 və 1,5 nisbətində olan 3 ədəd nümunə seçilib. Millərin 3d bərk cism modelinin çəkilməsi SolidWorks proqramından istifadə edilib. Numunələrin amterialı olaraq AİSİ 1045 markalı polad seçilib. SolidWorks simulation tətbiqindən ilə nümunələrin statik və boyuna əyilmə (bucling) analzi aparılıb. Eyler bükülmə halına uyğun olaraq nümunələr bir tərəfdən sərt (fixed bərkitmə tipi seçilib) bərkidilib, digər üst səthinə isə 30000N qüvvə tətbiq olunub. Analiz sonucunda gərginliyin, deformasiyanın, yerdəyişmənin, yük və təhlükəszlik əmsalının qiymətləri hesablanıb. Nəticələr əasən ölçüləri nisbəti 0,5 olan N1 nümunəsi dayanıqlı, ölçüləri nisbəti 1,5 , N2 nümunəsinin isə dayanıqsız olduğu müəyyən edilib.*

***Açar sözlər:*** *Von-Mises gərginliyi, deformasiya, təhlükəsizlik əmsalı, yük əmsalı.*

***SUMMARY***

*In the article, a static analysis of a two-step beam with variable cross-section was performed. The main goal of the work is to evaluate the effect of the size change of the samples on the stability of the spindle. For this, 3 samples with step lengths of 0.5, 1 and 1.5 were selected. SolidWorks software was*

*used to draw the 3D solid model of the spindles. AISI 1045 brand steel was chosen as the material of the samples. Static and longitudinal bending (buckling) analysis of the samples was performed using the SolidWorks simulation application. According to the Euler bending case, the samples were rigidly fixed on one side (the fixed fixing type was selected), and a force of 30000N was applied to the other upper surface. As a result of the analysis, the values of stress, deformation, displacement, load and safety factor were calculated. The results showed that sample N1 with a size ratio of 0.5 is stable, and sample N2 with a size ratio of 1.5 is unstable.*

***Keywords:*** *Von-Mises stress, deformation, safety factor, load factor.*

## GİRİŞ

Müasir mühəndis qurğularının tikintisində dəyişən en kəsikli millərdən geniş istifadə olunur. Bu tip millərin en kəsikləri fərqli formalara və ölçülərə malik olur. Slindrik en kəsiyə malik millər daha çox istifadə olunur. Eyler bükülmə nəzəriyyəsi tətbiq edilərək bu tip millərdə dayanıqlı problemləri həll olunur. Boyuna sıxıcı qüvvələrin təsirinə məruz qalan dəyişən en kəsikli millərin dayanıqlıq problemləri analtik metodla ətraflı təhlil olunub.

[1-3] işində dəyişən en kəsikli millərin dayanıqlı problemləri haqqında ətraflı məlumat verilib. Kritik parametrlərin hesablanma metodikası göstərilib. Baxılan məqalədə sonlu elementlər metodu ilə oxboyu sıxıcı qüvvənin təsirinə məruz qalan slindrik formalı, dəyişən en kəsikli millərin statik və bükülmə analizi aparılır və krtik parametrlərin ədədi qiymətləri təyin edilir.

Boyuna sıxıcı qüvvənin təsirinə məruz qalan, dəyişən en kəsikli millər üçün kritik qüvvəni aşağdakı ifadə ilə hesablamaq olar:

$$P_{kr} = \frac{\vartheta^2 E\dot{I}}{l^2} \quad (1)$$

Burada $E\dot{I}$ – sərtlik, $l$ – milin ümumi uzunluğudur. $\vartheta$ – xarakterik parametrdir. İki pilləli mil üçün aşağdakı kimi hesablanır:

$$1 - \frac{\vartheta_2 \rho_2}{\vartheta_1 \rho_1} tg\vartheta_1 tg\vartheta_2 = 0 \quad (2)$$

(2) ifadəsində $\vartheta_1 = d_1\sqrt{\frac{N_1}{E\dot{I}_1}}$; $\vartheta_2 = d_2\sqrt{\frac{N_2}{E\dot{I}_2}}$; $\rho_1 = \frac{E\dot{I}_1}{d_1}$; $\rho_2 = \frac{E\dot{I}_2}{d_2}$ kimi gesablanır.

Burada $d_1$ və $d_2$ – pillələrin uzunluğu, $N_1$ və $N_2$ – oxboyu daxili qüvvələrdir.

Verilmiş ifdaələrdən istifadə etməklə pillər üzrə kritik qüvvələrin qiymətlərini hesablamaq olar.

## 2. Material və metodlar

### 2.1. Nümunələrin dizayn edilməsi və materialın seçilməsi

Məqalədə pilllələrinin uzunluqları $\frac{d_2}{d_1} = 0,5$; $\frac{d_2}{d_1} = 1$ və $\frac{d_2}{d_1} = 1,5$ olan, sınaq nümunələri seçilmişdir. Sınaq nümunələrinin ölçüləri aşağdakı kimidir:

Nümunə 1 (N1): $d_1 = 100mm$; $d_2 = 50mm$; $l = 150mm$;

Nümunə 1 (N2): $d_1 = 75mm$; $d_2 = 75mm$; $l = 150mm$;

Nümunə 1 (N3): $d_1 = 60mm$; $d_2 = 90mm$; $l = 150mm$;

Nümunələrin pillələrinin diametri uyğun olaraq 20mm və 10mm-dir.

SolidWorks proqramında dizayn tətbiqindən istifadə etməklə nümunələrin 2d bərk cism modeli çəkilmişdir (şəkil 1).




Şəkil 1. Solidvorks proqramında sınaq nümunələrinin 3d bərks cism modellərinin çəkilməsi addımları

Sınaq nümunəsinin materialı olaraq, Soldvorks kitabxanasından AİSİ 1045 markalı polad material seçirik. Polad material aşağdakı mexaniki xüsusiyyətlərə malikdir.

Elastiklik modulu: 205000N/mm$^2$;
Puasson əmsalı: 0,29;
Sürüşmə modulu: 80000N/mm$^2$ ;
Sıxlığı: 7850kq/m$^3$;
Möhkəmlik həddi: 570-700N/mm$^2$;
Axıcılıq həddi: 530N/mm$^2$.

### 2.2. Millərin statik analizi

Millərin statik və bükülmə analzini aparmaq üçün solidWorks simulation tətbiqindən istifadə edilmişdir. Burada nümunənin bir tərəfi sərt bərkidilmiş, digər tərəfindən isə 30000N qüvvə tətbiq edilmişdir. Sınaq nümunələrə bərabər ölçüdə, sonlu sayda hissələrə bölüb analzi aparmaq üçün meş (mesh) tətbiq edilmişdir. Meş parametrlərinin ölçüləri analIzin dəqiqliyinə bilvaistə təsir edir. Meş parametri ölçüləri 2,43mm və 0,12mm -dir. Sınaq ünunələrinə qüvvələrin, bərkitmə tipinin və meş xüsusiyyətlərinin tətbiq aşağ;dakı şəkildə verilmişdir (şəkil 2).



a) b)

Şəkil 2. Sonlu elemntlər metodu ilə lövhənin statik analizi. a) sərhəd şərtləri, b) meş (mesh) xüsusiyyətinin tətbiqi.

Verilən sərhəd şərtləri daxilində hər üç nümunə üzrə, ayrı-ayrılıqlda statik analiz aparılır. Tətbiq olunan qüvvə qiymətinə uyğun olaraq, statik analiz sonucunda maksimum Von-Mises gərginliyinin, əyintinin, deformasiyanın və təhlükəsizlik əmsalının sınaq nümunələrinin səthi boyunca paylanmış

qiymətlərini əldə edirik. Sınaq nümunələrinin stataik analizinin nəticələri aşağdakı şəkillərdə verilmişdir (şəkil 3).

N1 N2 N3




a)

N1 N2 N3




b)




c)




d)

Şəkil 3. Statik analiz nəticələri: a) Von-Mises gərginliyinin qiymətləri; b) yerfəyişmənin qiymətləri; c) deformasiyanın qiymətləri; d) Təhlükəsizlik əmsalının qiymətləri.

N1 N2 N2




Şəkil 4. Boyuna əyilmə analiz (Buckling) nəticələri

### 2.3. Statik analiz nəticələri

Şəkil 3a-da N1, N2 və N3 sınaq ünmunələrində Von- Mises gərginliyinin paylanması göstərilmişdir. N1 sınaq nümunəsində Von-Mises gərinliyinin maksimum qiyməti 489N/mm$^2$, minumum qiyməti isə 5,38N/mm$^2$ -dir. N2 nümunəsi üzrə uyğun olaraq 478N/mm$^2$ və 7,5N/mm$^2$, N3 nümunəsi üzrə isə 482,5N/mm$^2$ və 6,3N/mm$^2$-dır. Ən böyük gərginlik N1 nümunəsində, ən kiçik gərginlik isə N2 nümunəsində müşahidə edilmişdir. N1 və N3 nümunələri arasında 1,4% gərginlik fərqi müşahidə edilmişdir.

Nümunələr üzrə yerdəyişmə qiymətlərinin paylanması şəkil 3b-də verilmişdir. N1 nümunəsində makimim yerdəyişmə 0,143mm, N2 nümunəsində 0,178mm, N3 nümunəsində isə 0,199mm olmuşdur. Ən böyük yerdəyişmə N3 nümunəsində müşahidə edilmişdir. N2 və N3 nümunələri arasında fərq 10% fərq var. Deformasiya qiymətləri şəkil 3c-də verilmişdir. Deformasiya qiymətlərinin maksumum qiymətləri uyğun olaraq 0,00183, 0,0019 və 0,00184 olmuşdur. Ən böyük deformasiya N2 nümunəsində olmuşdur.

Təklükəsizlik əmsalının paylanma forması şəkil 3d-ə verilmişdir. Təhlükəszlik əmsalı kritik vəziyyətlərdə, konstruksiya hissələrinin dağılmama qiymətini xarakterizə edir. Konstruksiya hissələrinin layihələndirilməsində təhlükəsizlik əmsalının qiymətinin 1-dən böyük olması tövsiyə olunur. Baxılan işdə bütün nümunələr üzrə təhlükəsizlik əmsalının qiyməti təxminən 1,1-ə bərabərdir.

Verilmiş nümunələr üzrə boyuna əyilmə (buckling) analzi aparılmışdır (şəkil 4). Bükülmə analizinin nəticəsi əsasında yük əmsalının qiyməti müəyyən edilmişdir. N1 nüunəsində yük əmsalının qiyməti 2,23, N2 nümunəsində 1,23, N3 nümunəsində isə 0,90 olmuşdur. Yük əmsalının qiymətinin vahidən böyük olması tövsiyyə olunur.

### Nəticə və müzakirələr

Gərginlik, deformasiya, yük və təhlükəsizlik əmsalının paylanmış qiymətləri əldə olunub. Von-Mises gərginliyinin ən böyük qiymətlərinin, kiçik pillənin başlandığı nöqtədə yığıldığı müşahidə edilmişdir. Ölçüləri nisbəti 0,5 və 1,5 olan nümunələdə gərginlik qiymətləri ən böyük alınmışdır.

Yerdəyişmənin ən böyük qiymətinin nümunələrin ust, qüvvə tətbiq olunan səthə yaxın oblastlarda müşahidə edilmişdir. Ən böyük yerdəyişmə N3 (ölçüləri nisbəti 1,5 olan) -də alınmışdır. Bu qiymət nümunə N3 verilmiş yük altında dayaqnılı olmadığını göstərir.

Ən böyük deformasiyalar əsasən pillələrin keçid nöqtələrinə yaxın oblastlarda müşahidə edilmişdir. Ən böyük deformasiya qiyməti N3 nümunəsində alınmışdır.

Təhülkəszilik əmsalının hər üç nümunə üzrə 1,1 olmuşdur. N3 nümunəsində yük əmsalının ən kiçik qiyməti vahidən kiçik alınmışdır. Bu həmin nümunənin verilmiş yük altında boyuna əyiləcəyini göstərir. Qiymətlərin analizi göstərirki, ən dayanıqlı nümunə N1, dayanıqsız nümunə isə N3 nümunəsidir. N2 nümunəsini qismən dayanıqlı hesab etmək olar.

**Ədəbiyyat**

1. А.Ф. Смирнов, А.В. Александров, Б.Я. Лащеников. Строитель механика. Динамика и устойчивость сооружений. М.: Стройиздат, 1984.-416с.
2. Вольмир А.С. Устойчивость деформируемых систем: М.: “Наука”, 1967.- 984 с.
3. Атапин, В. Г. Сопротивление материалов: учебник и практикум для вузов / В. Г. Атапин. 3-е изд., перераб. и доп. Москва: Издательство Юрайт, 2023, 438 с.
4. Hüseyn Mirzəyev, Natiq Rzayev. Boyuna əyilmə deformasiyasına məruz qalan millərdə əyintinin Taquçi metodu ilə eksperimental tədqiqi// Journal of Baku Engineering University. Mechanical and industrial engineering. 2022. Volume 6, Number 2. Pp. 59-66
5. Paul M. Kurowski. Engineering Analysis with SolidWorks Simulation. 595 pg., 2018.
6. Levy, H. and Lessman, F., Finite Difference Equations, Dover Publications, New York., 1992.

## ALTERNATIV SOYUDUCU AGENTLƏRIN SOYUQLUQ SƏNAYESİNDƏ İNKİŞAF PERSPEKTİVLƏRİ

**Akif Bayram oğlu Baxşıyev**
AzTU[1], Bakı, Azərbaycan

**Asif Hümbət oğlu Quliyev**
BMU[2], Xırdalan, Azərbaycan

**Firuzə Afər qızı Məmiyeva**
qr.1281a, BMU[3], Xırdalan, Azərbaycan
***akif_bax.yahoo.com***

**Xülasə:** Məqalədə əsasən soyutma sistemləri və onlarda istifadə olunan soyuducu agent-lərin başlıca olaraq inkişaf tarixindən bəhs edilmiş, onların həyatımızdakı lazımlı önəmlərindən danışılmışdır. Daha sonra onların gündəlik həyatımızı yaxşılaşdığı halda dünya üzərində əraf mühitə necə təsir etmələri vurğulanmışdır. Soyuducu agentlərin gərək ozon təbəqəsinin dağı-dılması, gərəksə də qlobal (kürəsəl) istiləşməyə səbəb olmaları məsələsi önə çıxarılmış və yeni alternativ agentlərin vacibliyi üzərində dayanılmışdır. İstifadəsi hər keçən gün qadağan edilən soyuducu qarışıqlar (azeotrop və azeotrop olmayan) haqqında məlumat verilmişdir. Məqalədə həmçinin, bir çox təcrübi və ədəbiyyat araşdırmalarına əsasən mövcud sistemlərdə istifadə olunan soyuducu agentlərin yerinə yeni alternativ agentlər və qarışıqlar təklif olunmuşdur.

**Açar sözlər:** Soyuducu agentlər; soyutma sistemləri; ozon təbəqəsi; Qlobal İstiləşmə; azeotrop qarışıqlar; alternativ agentlər.

**Summary:** The article mainly talks about the history of the development of cooling systems and the cooling agents used in them, and their necessary importance in our life. Later, it was emphasized how they affect the environment around the world while improving our daily life. The issue of cooling agents destroying the ozone layer and causing global warming was highlighted and the importance of new alternative agents was emphasized. Refrigerant mixtures (azeotropic and non-azeotropic) that are

prohibited for use every day are reported. The article also proposed new alternative agents and mixtures to replace the cooling agents used in existing systems based on many experimental and literature studies.

**Keywords:** Refrigerant agents; cooling systems; ozone layer; Global Warming; azeotropic mixtures; alternative agents.

## PROSPECTS FOR THE DEVELOPMENT OF ALTERNATIVE REFRIGERANTS IN THE REFRIGERATION INDUSTRY

**Abstract:** The article mainly talks about the history of cooling systems and the cooling agents used in them, and their necessary importance in our life. Then it was emphasized how they affect the environment around the world while improving our lives. The issue of cooling agents destroying the ozone layer and causing global warming was highlighted and the importance of new alternative agents was emphasized. Refrigerant mixtures (azeotropic and non-azeotropic) that are prohibited for use every day are reported. The article also proposed new alternative agents and mixtures instead of cooling agents used in existing systems based on some experimental and literature studies.

**Keywords:** Refrigerant agents; cooling systems; ozone layer; Global Warming; azeotropic mixtures; alternative agents.

Maddə və ya mühitdən istiliyi alaraq soyutma funksiyasını yerinə yetirən maddələrə və ya işçi agentlərə soyuducu agentlər deyilir. Soyuducu agentlər mexanik sıxmalı soyutma sistemlə-rində istiliyin bir mühitdən digərinə daşınması vəzifəsini yerinə yetirir. Bir sözlə soyutma sistemində istiliyin bir mühitdən alınıb başqa bir mühitə verilməsi işləri soyuducu agentlər vasitəsilə həyata keçirilir. Soyuducu agentlərin buxarlandırıcıda soyudulan mənbədən istiliyi alıb, kondensatorda isti mənbəyə verməsi prosesi faza dəyişməsi ilə gerçəkləşir. Aşağı təzyiqdə agent buxarlandırıcıda qaynayaraq buxarlanarkən, yüksək təzyiqdə kondensatorda mayeləşir. Bu səbəbdən soyuducu agentlərin buxarlanma və ya mayeləşmə gizli istilik miqdarı çox önəmlidir. Su və buz ilk soyuducu agent olaraq istifadə olunmasına baxmayaraq, ticarət baxımından ilk istifadə olunan agent efirdir. Belə ki, ilk dəfə 1850-ci ilində buxarla çalışdırılan nasos vasitəsilə efirin buxarlandırılması ilə buz əldə edilmişdir. Sonralar 1931- ci ildən başlayaraq CFC (Kloroflo-rokarbon), HCFC (Hidrokloroflorokarbon) və HFC (Hidroflorokarbon) əsaslı soyuducu agentlərin ixtira olunmasına qədər ammonyak, karbondioksid, sülfürdioksid, metil xlorid, etil xlor, metilamin, azot oksidi, butan, propilen, karbon tetra xlor, etil bromid, nafta, pentan, izobutan və benzin kimi zəhərləyici, yanıcı, yandırıcı, partlayıcı və pis qoxu özəllikləri olan orqanik olmayan kimyəvi birləşmələr, soyuducu agent olaraq istifadə olunmuşdur. Hallokarbon (CFC, HCFC və HFC) tipli soyuducu agentlər, metan ($CH_4$) və ya etan ($C_2H_6$) birləşməsinin içərisindəki hidrogen atomlarından bir və ya bir neçəsinin yerinə sintez yolu ilə xlor, flor və ya brom atomları yerləşdirməsi ilə əldə edilmişdir. Məsələn; HFC qrupundan olan R-134a ($CH_2FCF_3$) soyuducu agenti, etan ($C_2H_6$) qazında birinci karbon birləşməsində, bir hidrogen yerinə bir flor və ikinci karbon birləşməsində üç hidrogen yerinə üç flor atomunun sintez yolu ilə əvəzolunması nəticəsində əldə edilmişdir. 1974-cü ildən soyutma sistemlərində istifadə olunan CFC və HCFC – lərin ozonu dağıtdığı ortaya çıxınca, 1978-ci ildən başlayaraq bu agentlərin istehsalı və istifadəsi ilə bağlı bəzi qərarlar alınmağa başlanıldı ki, bu da onların istifadəsinin dayandırılmasına və bəzilərinin isə istfadə olunmasının azaldılmasına gətirib çıxardı [1,2,3].

Son illərdə isə mexanik sıxmalı soyutma sistemlərində qarışıq qazların istifadə olunması çoxalmağa başlamışdır. Qarışıq qazların (R-404A, R-407C, R-410A R-438A və s.) hələdə geniş bir şəkildə istifadə olunmasına rəğmən, qlobal istiləşmə səbəbləri üzündən orqanik olmayan soyuducu agentlər (R-744, R-717, R-290, R-600, R-600a və s.) ön plana çıxmağa başlamışdır. Ayrıca son vaxtlar bütün yağlarla (mineral yağ (MO), alkilbenzin (AB) və polyol efir (POE)) uyuşan, yəni əvəzedimələrdə yağ dəyişməsi həyata keçirilməyən, yeni alternativ qarışıq qazları (R-422D, R-437A, R-417A, R-422A və s.) əldə edilmiş və bu sahədə çalışmalar davam etməkdədir [4,5,6].

Aşağıdakı cədvəldə qarışıq şəklində əldə edilmiş bəzi soyuducu agentlərin tərkibi verilmiş-dir.

Cədvəl 1.

| Soyuducu maddə | Birləşmələr (% tərkibi ilə) |
|---|---|
| R401A | % 52 R 22 + % 33 R 124 + % 15 R152a |
| R402A | % 38 R 22 + % 60 R 125 + % 2 R290 |
| R404A | % 44 R 125 + % 4 R 134a + % 52 R143a |
| R407A | % 20 R 32 + % 40 R 125 + % 40 R 134a |
| R407B | % 10 R 32 + % 70 R 125 + % 20 R 134a |
| R407C | % 23 R 32 + % 25 R125 + % 52 R134a |
| R410A | % 50 R 32 + % 50 R 125 |
| R500 | % 73.8 R 12 + % 26.2 R152a |
| R502 | % 51.2 R 115 + % 48.8 R 22 |
| R507 | % 50 R 125 + % 50 R143a |

Hal – hazırda istifadə olunan soyuducu agentləri altı qrupa bölərək təhlil etmək mümkün-dür:

**1. Kloroflorokarbon (CFC)**. Karbon birləşməsindəki hidrogen atomları tamamilə xlor və flor atomları ilə dəyişdirilən soyuducu agentlərə, tam hallogenləşdirilmiş soyuducu agentlər deyilir. CFC – lər etan və ya metan sırasından ola bilirlər. CFC – lərin kimyəvi dəyanətliyi çox yüksək olduğu üçün uzun müddət parçalanmadan atmosferdə qala bilirlər. CFC – lər ozon təbəqəsinə ən çox zərər verən soyuducu agentlərdir. Ayrıca qlobal istiləşmə potensialları olduqca çoxdur. Bun-lardan dolayı CFC – lərin istifadəsi üçün dünya miqyasında bəzi qadağa və tədbirlər alınmışdır. Köhnədən istifadə olunan soyuducu sistemləri çıxmaqla, yeni sistemlərdə bu agentlərin istifadəsi tamamilə dayandırılmışdır. Bunlardan ən çox istifadə olunanları R-11, R-12, R-13, R-114 və R-115 - dır.

**2. Hidrokloroflorokarbon (HCFC).** Metan və etan molekullarinin tərkibindəki hidrogen atom-larının bir qisminin xlor və ya flor atomları ilə əvəz edilməsi nəticəsində əmələ gələn birləşməyə qismən hallogenləşmiş adı verilir. Yəni karbon birləşməsində hələ bəzı hidrogen atomları qalmaq-dadır. Yəni bütün hidrogen atomları xlor və flor atomları ilə əvəz olunmamışdır. Bu cür əmələ gələn molekula HCFC adı verilir. HCFC – lərdə xlor atomu olduğu üçün ozon təbəqəsi ilə reaksiyaya girir. Buna rəğmən HCFC – lərin tərkibində hidrogen atomu olduğu üçün onların kimyəvi dəyanətliliyi çox zəıfdır. Atmosferdə uzun müddət strukturu pozulmadan qala bilmir. HCFC – lər atmosferə doğru qalxarkən strukturlarındakı hidrogen, atmosfer havasının tərkibindəki su molekulları ilə reaksiyaya girərək quruluşu pozulur. Bu üzdən HCFC – lərin çoxu, atmosferin stratosfer təbəqəsinə çata bilmir və atmosferin alt təbəqəsində parçalanır. HCFC – lərin ona görə də ozonu dağıtma (deşmə) potensialı azdır. Bunlardan ən çox istifadə olunanları R-22, R-124, R-123 - dir.

**3. Hidroflorokarbon (HFC)**. HFC – lərin bütün molekulu yalnızca flor atomu ilə halogen-lənmişdir. Molekulun tərkibində xlor atomu yoxdur. HFC – lərin tərkibində flor, hidrogen və karbon atomları vardır. Birləşmədə xlor atomu olmadığı üçün HFC – lərin ozonu dəlmə potensialı sıfırdır. Yəni ozon təbəqəsi üzərində heç bir təsirə malik deyildir. Buna rəğmən qlobal istiləşməyə çox böyük təsiri vardır. Ən çox istifadə olunan hidroflorokarbon R-134a - dır.

**4. Qarışıq əsaslı agentlər**. İki və daha çox soyuducu agentin müəyyən miqdarda qarışdırılaraq əldə edilən yeni soyuducu agentə, qarışıq əsaslı agent adı verilir. Günümüzdə ən populyar qarışıqlar R-404A, R-407C, R-410A, R-507A və R-508B - dir. Son zamanlarda görülən işlər nəticəsində bütün yağ qrupları ilə uyuşma saxlayan yeni qarışıq əsaslı soyuducu agentlər (R-422D, R-437A, R-417A, R-422A və s.) icad edilmiş və edilməyə davam etməkdədir. Ozona çox az və ya heç təsir etməyən qarışıq əsaslı agentlər üzərindəki çalışmalar davam etdirilməkdədir. Lakin bu cür qarışıq əsaslı agentlərin qlobal istiləşməyə çox böyük təsirləri vardır. İki növ qarışıq əsaslı soyuducu agentlər vardır:

• **Azeotrop olmayan qarışıqlar**: Qarışıq öz xarakteristik xüsusiyyətlərini qoruyan 400 rəqəmli soyuducu agentlərdən ibarətdir. Bu qarışıqların işarələnməsi istehsal sırasına görə aparılır. Ter-modinamik özəllikləri yaxşı olan bu agentlər, qarışıqda özünə xas xüsusiyyətləri ilə hərəkət etdikləri üçün agentin sızması problem yaradır. Qarışığı təşkil edən agentlərdən hansı miqdarda agentin sızması bəlli olmadığı üçün, agent sistemdən tamamən boşaldılıb yenidən doldurul-malıdır. Bu qarışıqlardan geniş istifadə olunanları R-404A, R-407C, R-410A - dır. Son görülən çalışmalarda icad olunan yeni alternativlər isə R-417A, R-422A, R-422D, R-423A, R-437A və R-438A soyuducu agentlərindən

ibarədir. Bu yeni alternativ soyuducu agentlərin ən önəmli özəlliyi isə çoxunun, soyutma sistemlərindəki kompressorlarda istifadə olunan hər növ yağlama yağı ilə uyğun gəlmələridir.

• **Azeotrop qarışıqlar**: Qarışıq özəlliyini qorumayıb yeni bir fərqli agent kimi davranan 500 rəqəmli agentlərdir. Onların işarələnməsi də istehsal sırasına görə aparılır. Ən çox bilinənləri R-507, R-508A, R-508B və R-509A - dır.

**5. Hidrokarbonlar (HC).** Son illərdə ozon təbəqəsinin nazilməsi və qlobal istiləşmə qayğıları səbəbindən yanıcı və partlayıcı olmalarına rəğmən propan (R-290), butan (R-600) və izobutan (R-600a) soyuducu agent olaraq istifadə olunmaqdadır. Butan və izobutan, 400 rəqəmli qarışıq qazlarında da istifadə edilməkdədir. Məsələn; R-417A - da % 3,4 ətrafında butan, R-422A və R-422D – də isə % 3,4 miqdarında izobutan isifadə edililməkdədir. Hidrokarbonlar təbii, zəhərsiz, ozonu dağıtmayan, yüksək enerji verimliliyi saxlayan, qlobal istiləşmə potensialı normal səviyyədə olan, soyutma sistemi avadanlıqlarını dəyişmədən çalışa bilən və mövcud soyuducu agent yağları ilə uzlaşma göstərən agentlərdir. Təbiətdə təmiz qaz şəklində mövcud olduqları üçün istehsalı asan və maliyyə dəyəri aşağıdır.

**6. Hallokarbonlar.** Təbii soyuducu agentlər 1900-cü illərdə çox istifadə edilmişdir. Bunlardan ən çox istifadə olunanları karbondioksid və ammonyakdır. Karbondioksid, soyutma sənayesinin inkişaf dövrlərində geniş istifadə olunmuşdur. Ancaq kritik nöqtə ətrafında və ya üzərindəki isilikvermə səbəbindən ortaya çıxan soyutma təsir təbəqəsindəki enmə və yüksək işçi təzyiq səbəbindən öz yerini hallokarbon kimi soyuducu agentlərə vermişdir. Hallokarbon soyuducu agentləri ətraf mühitə zərərsiz təsirləri səbəbindən alternativ, təbii soyuducu agent olaraq yenidən istifadə olunmağa başlanmışdır. Son zamanlarda soyuq su avtomatlarında, soyudulan otaqlarda, qida istehsalı və iaşə müəssisələrində, sənaye dondurma istehsalı maşınlarında, istilik nasosları və nəqliyyat kondisionerlərində $CO_2$ – nin soyuducu agent olaraq istifadəsi getdikcə geniş yayılmışdır. R-744 ($CO_2$), 31,06 °C aşağı kritik nöqtə istiliyi və 73,8 bar yüksək kritik nöqtə təzyiqi səbəbindən digər əsas soyuducu agentlərə nəzərən bir sıra texniki cəhətdən üstünlüklərə malikdir [8, 9].

Soyuqluq texnikasında hal - hazırda ən çox istifadə olunan soyuducu agentlərin bəzi əsas fiziki və kimyəvi xarakteristikaları cədvəldə verilmişdir.

Cədvəl 2.

| Soyudu-cu agent | Kimyəvi formulu | Qarışıq tərkibi | Buxar-lanma istiliyi, 1 atm. ( $^0$ C ) | Gizli buxar-lanma istiliyi, 1atm. (kC/kq) | Kritik təzyi-qi, (kPa) | Kri-tik isiliyi ($^0$C ) | ODP (CFC-12=1) | GWP ($CO_2$=1) (GWP), C |
|---|---|---|---|---|---|---|---|---|
| R-12 | $CCL_2F_2$ | - | -29.8 | 151.3 ($0^0$ C) | 4116 | 112 | 1 | 8500 |
| R-22 | $CHCLF_2$ | - | -40.8 | 233.5 | 4981 | 96.24 | 0.05 | 1500 |
| R-134a | $CH_2FCF_3$ | - | -26.5 | 217.2 | 4060 | 101.1 | 0 | 1300 |
| R-1234yf | $C_3H_2F_4$ | - | -29.5 | 180.2 | 3360 | 94.7 | 0 | 4 |
| R-1234ze | $CF_3CH=CHF$ | - | -18.95 | 195.4 | 3636 | 109.4 | 0 | 1 |
| R-404A | $CHF_2CF_3$<br>$CH_3CF_3$<br>$CH_2FCF_3$ | R-125 %44<br>R-143a %52<br>R-134a %4 | -46.5 | 201.5 | 3732 | 72.1 | 0 | 3260 |
| R-407C | $CH_2F_2$<br>$CHF_2CF_3$<br>$CH_2FCF_3$ | R-32 %23<br>R-125 %25<br>R-134a %52 | -43.5 | 245.1 | 4619 | 86.74 | 0 | 1526 |
| R-410A | $CH_2F_2$<br>$CHF_2CF_3$ | R-32 %50<br>R-125 %50 | -51.5 | 276.2 | 4926.1 | 72.12 | 0 | 1725 |
| R-32 | $CH_2F_2$ | - | -51.7 | 381.8 | 5780 | 78.1 | 0 | 650 |
| R-417A | $CHF_2CF_3$<br>$CH_2FCF_3$<br>$CH_3CH_2CH_2CH_3$ | R-125 %46.6<br>R-134a %50<br>R-600 %3.4 | -39.12 | 197.9 | 4036 | 87.04 | 0 | 1950 |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| R-422A | $CH_2FCF_3$ $CHF_2CF_2$ $(CH_2)_3CH$ | R-134a %11.5 R-125 %85.1 R-600 %3.4 | -46.5 | 175.8 | 3747 | 71.75 | 0 | 2530 |
| R-422D | $CH_2FCF_3$ $CHF_2CF_3$ $(CH_2)_3CH$ | R-134a %31.5 R-125 %65.1 R-600 %3.4 | -43.20 | 187 | 3903 | 79.56 | 0 | - |
| R-508B | $CHF_3$ $CF_2CF_3$ | R-23 %46 R-116 %54 | -88 | 128.7 ($-40^0$C) | 3926 | 14 | 0 | 10350 |
| R-744 | $CO_2$ | karbondioksid | -78.4 | - | 7377 | 31 | 0 | 1 |
| R-717 | $NH_3$ | Ammonyak | -33.3 | - | 11333 | 132.2 | 0 | 0 |
| R-290 | $C_3H_8$ | propan | -42.1 | - | 4248 | 96.7 | 0 | 11 |
| R-600 | $CH_3CH_2CH_2CH_3$ | butan | -0.55 | - | 3796 | 152 | 0 | 3 |
| R-600a | $(CH_2)_3CH$ | izobutan | -11.67 | - | 3640 | 135 | 0 | 3 |

Cədvəldən göründüyü kimi istifadə olunan agentlərdən Ozon Dağıtma Potensialı (ODP) sıfıra bərabər olan agentlər çoxluq təşkil etsədə Qlobal İstiləşmə Potensialı (GWP) normada olan agentlər R-744, R-717, R-600, R-600a və b. sayılır.

Mövcud sistemlərdə istifadə olunan soyuducu agentlərin böyük bir hissəsi Ozon Dağıtma Potensialının (ODP – Ozone Depletion Potensial) yüksək olmasına görə ozon təbəqəsinin nazil-məsinə və atmosferdə uzun müddət qala bilməsi (GWP – Global Warning Potensial) xüsusiyyə-tinə görə dağıdıcı təsirə səbəb olmaqla yanaşı ozon təbəqəsinə zərər verə bilmə potensialına malikdirlər. Bəzi soyuducu agentlərin atmosferdə qalıb yaşama müddəti və ozon qatına təsirini əks etdirən göstəricilər cədvəl 3-də verilmişdir.

Cədvəl 3

| **Soyuducu agent** | **Amosferdə yaşama müddəti** | **ODP** Ozon dağıtma potensialı | **GWP($CO_2$)** Ozon aşındırma potensialı | **GWP(R-11)** Kürəsəl istiləşmə potensialı |
|---|---|---|---|---|
| R-11 | 60 il | 1.0 | 3300 | 1.0 |
| R-12 | 120 il | 1.0 | 10 000 | 3.1 |
| R-113 | 90 il | 0.8 | 4500 | 1.3 |
| R-114 | 200 il | 0.7 | 13000 | 4.2 |
| R-115 | 400 il | 0.4 | 25000 | 9.8 |
| R-500 | - | 0.74 | 2700 | - |
| R-502 | - | 0.33 | 13300 | 5.1 |
| R-22 | 15.3 il | 0.05 | 1100 | 0.37 |
| R-123 | 2 | 0.02 | 28 | - |
| R-134a | 15.5 il | 0 | 900 | 0.29 |

Ozon ($O_3$) üç ədəd oksigen atomlarından ibarət olan səffaf bir qazdır. Ozon təbəqəsi ozon qatından ibarət olan və atmosferin yuxarı səviyyələrində, başqa sözlə yer səthindən 15 – 20 km yüksəkliklərdə yerləşən bir təbəqədir. Bu təbəqənin əsas rolu ultrabənövşəyi (UV - Ultraviyalet) şüaları olaraq adlandırılan günəşin zərərli şüalarından bizləri qorumaqdır. Ozon təbəqəsi yer səthinə çatan bu zərərli şüalara qarşı bizləri qorumaq üçün bir süzgəc rolunu oynayır [7, 8].

Aşağıdakı şəkildə parçalanaraq atmosferdə sərbəst qalan xlor atomlarının Ozon təbəqəsini dağıtma mexanizmi əks olunmuşdur.




Şək.1. Ozon təbəqəsinin dağılma mexanizmi

Şəkildən də göründüyü kimi 100 ildən artıq amosferdə yaşama müddəti olan bir xlor atomu bu müddət ərzində minlərlə Ozon molekulunu parçalayaraq ona dağıdıcı təsir göstərir. Odur ki, bu cür dağılma mexanizminin qarşısını almaq üçün alternativ agentlərin daimi axtarışı istiqamətində görülən işlərin artırılması gündəmdə olmalıdır. Əks halda yaşadığımız dünyanı hansı fəlakətlərin gözlədiyi göz önündədir.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

1. Technlogies For Protecting the Ozone Layer, Air Conditioning and Heat Pump Catalogue, UNEP, July 1994.
2. UNEP 1994 Report of The Refrigeration, Air Conditioning and Heat Pumps Technical Option Committee 1995 Assesment.
3. H.M.Quliyev, A.B.Baxşıyev, M.A.Talıbov. О приминении альтернативных хладагентов малых холодильных компрессорах. “Texnika” jurnalı №1, səh.63-67, Bakı ş.,2002.
4. Reinhard Radermacher, Yunho Hwang. Vapor compression Heat pumps with refrigeration mixtures, 2005.
5. Osami Kataoka, JRAIA, “ISO 5149, IEC60335-2-40 Proposed Changes to Incorporate 2L Refrigerants”, June 24, 2012 ASHRAE Annual Conferense.
6. Hilde Dhont, Daikin Europe N.V. Environment Research Center, “Next Generation Refrigerants A Daikin Perspective”, Chillventa 2012.
7. A.B.Baxşıyev, Ə.N.Məhərrəmova. Soyuducu agentlərin ətraf mühitə təsiri. « Gənclər və elmi innovasiyalar» mövzusunda Respublika Elmi – Texniki konfransının materialları, Bakı ş. 2019.
8. A.B.Baxşıyev. Soyutma sistemlərində istifadə olunan soyuducu agentlər və onların ətraf mühitə təsiri. “Tikinti istehsalatında texnoloji maşınların istifadəsinin müasir problemləri” mövzusunda Respublika Elmi – Praktiki konfransının materialları. (AzMİU), Bakı ş. 2019.
9. Kadir İsa, Ayhan Onat. “İklimlendirme ve Soğutma Sistemlərində Enerji Verimliliyi”. FRİTERM. Cild 2., 452 səh., İstanbul, 2017.

# QAZ KƏMƏRLƏRINDƏ TEXNOLOJI REJIMIN POZULMASI ZAMANI KƏMƏRDƏ YARANAN MÜRƏKKƏBLƏŞMƏLƏR VƏ ONLARIN ARADAN QALDIRILMASI YOLLARI

**ANAR NAĞIZADƏ**
"Neftqazelmitədqiqatlayihə"İnstitutu, SOCAR
*Nagizadeanar26@gmail.com*
BAKI, AZƏRBAYCAN

**XÜLASƏ**

Məqalədə hal-hazırda fəaliyyət göstərən magistral və texnoloji qaz kəmərlərinin istismarı zamanı yaranan mürəkkəbləşmələr və qazın nəql prosesini çətinləşdirən amillər vurğulanmışdır. Mədənlərdə istehsal olunan təbii qazların tərkibində əlavə qarışıqlar olur ki, bu qarışıqlar əsasən bərk hissəciklər (qum, gil, korroziyadan yaranan hissəciklər), ağır karbohidrogenlərin kondensatı, su buxarları, hidrogen sulfid, karbon iki oksid və təsirsiz qazlardan ibarətdir. Tədqiqatın ən başlıca məqsədi qaz kəmərinin istismarı dövründə yaranan mürəkkəbləşmələrin vaxtında aradan qaldırılması üçün kəmərdə nəql olunan qazın tərkibindən mexaniki qarışıqların təmizlənməsinin vacibliyindən ibarətdir. Həmçinin qaz kəmərlərinin xarici səthinin texniki müayinəsinin vacibliyi və ardıcıllığı vurğulanmışdır. Nəzərdə tutulan vaxt ərzində istismarda olan boru kəmərinin qalıq resurslarını hesablamaqla yaranan gərginlik müəyyən olunur. Qalıq istismar resurları hesablanaraq elementin gələcək istimar müddəti təyin olunur. Boru kəmərlərinin texniki diaqnostikasının məqsədi kəmərin qalıq istismar resursunun qiymətləndirilməsi ilə sənaye təhlükəsizliyinin təmin olunmasıdır. Boru kəmərləri üçün texniki diaqnostika işlərinin aparılması təhlükəli istehsalat obyektlərinin istismarı zamanı sənaye təhlükəsizliyinin təmin olunması böyük önəmə və aktuallığa malikdir. Boru kəmərlərində aparılan texniki müayinə nəticəsində qüsurlar ilkin olaraq araşdırılaraq konstruksiyanın anidən sıradan çıxmasını önləyir, təhlükəsiz və etibarlı istismarını mümkün edir. Neft-qaz kəmərlərinin texniki vəziyyətini xarakterizə edən bir sıra parametrlər mövcuddur. Konstruksiyanın istismarda olan zaman texniki göstəricilərinin dəyişməsi konstruksiyaya təsir edən xarici təsirlərdən və bir sıra zərərverən proseslərdən asılıdır. Hazırda bu problemin həlli üçün bir sıra ənənəvi və yeni metodlar vardır.

**ABSTRACT**

The article highlights the complications that arise during the operation of main and technological gas pipelines and the factors that complicate the gas transportation process. Natural gases produced in mines contain mainly solid particles (sand, clay, corrosion particles), condensate of heavy hydrocarbons, water vapor, hydrogen sulfide, carbon dioxide and additional mixtures of inert gases. The main aim of the research is the importance of cleaning mechanical impurities in the gas transported in the pipeline in order to timely eliminate complications arising during the operation of the gas pipeline. The importance and consistency of technical inspection of the external surface of gas pipelines was also emphasized. The resulting stress is determined by calculating the remaining resources of the pipeline in operation for the considered period. The remaining operating resources are calculated and the future service life of the element is determined. The purpose of technical diagnosis of pipelines is to ensure industrial safety by assessing the remaining resource of use of the pipeline. It is of great importance and importance to carry out technical diagnostic studies on pipelines to ensure industrial safety during the operation of hazardous production facilities. As a result of the technical inspection of pipelines, defects are first investigated and sudden failure of the structure is prevented and safe and reliable operation is possible. There are a number of parameters that characterize the technical condition of oil and gas pipelines. Changes in the technical indicators of construction during operation depend on external factors affecting the construction and some damaging processes. Currently, there are a number of traditional and new methods to solve this problem.

**AÇAR SÖZLƏR**: Magistral qaz kəməri, hidrat, hidravliki müqavimət, karbohidrogen itkisi, texnoloji rejim, sızma, texniki diaqnostika, qalıq istismar resursu.

**KEY WORDS**: Main gas pipeline, hydrate, hydraulic resistance, hydrocarbon loss, technological regime, leakage, technical diagnosis, source of residual use.

## GIRIŞ

Neft-qaz mədən qurğularının diaqnostikası konstruksiyanın istismarı dövründə çox böyük əhəmiyyətə malikdir. Bunun əsas məqsədi potensial təhlükələrin aşkara çıxması, etibarlı istifadəsinə davam edib etməməsi və onların aradan qaldırılması üçün bərpa-gücləndirmə işlərinin görülməsidir. Buna görə də, texniki müayinə zamanı aşınma, korroziya, uyğunsuzluq, dislokasiya və s. ehtimal olunan hissələrə xüsusi diqqət yetirilməli, təhlükəsiz iş prinsipinin təmin olunması üçün qabaqlayıcı tədbirlər görülməlidir. Bu tədbirlərə əsasən neft-qaz kəmərlərinin təhlükəsiz iş prinsipinin təmin olunması üçün konstruksiyanın vaxtaşırı yoxlanılması tələb olunur. Bunun üçün texniki diaqnostka işlərinə başlamazdan öncə aparılan işlərin ardıcıllığı qeyd olunan proqram tərtib olunur. Bu proqram əsasında işlər ardıcı olaraq həyata keçirilərək neft-qaz kəmərlərinin qalıq istismar resurslarının qiymətləndirilməsi aparılır.

Bildiyimiz kimi Azərbaycanın qaz təsərrüfatı ölkəmizin enerji balansını təşkil edən aparıcı sahələrdən biridir. Hal-hazırda qazın nəqlini həyata keçirən 5000 km-dən çox olan magistral qaz kəmərləri vardır. Magistral və texnoloji qaz kəmərlərinin səmərəli və etibarlı iş rejimi onun istismarının xüsusi norma və qaydalara uyğun olaraq təşkili və təkmilləşdirilməsindən ibarətdir.

Qaz kəmərlərinin təhlükəsiz fəaliyyətinin təmin olunması kompleks problemdir. Bu problemlərin həlli üçün aparılan aparılan işlər bir qayda olaraq istismar zamanı həyata keçirilir. Təbii qazın boru kəməri ilə nəqli zamanı karbohidrogen itkiləri baş verir ki, bu itkilərin azaldılması istiqamətində bir sıra məsələlər işlənib hazırlanmışdır. Baş verən karbohidrogen itkilərinin ən başlıca səbəbləri aşağıda verilmişdir [D.Ə.İsgəndərov, 2014]:

- qazın boru kəməri ilə nəqli zamanı texnoloji rejimin pozulması;
- boru kəmərində müəyyən məsafədən bir quraşdırılmış qovşaqlarda qazın parametrlərinə nəzarətin zəif həyata keçirilməsi;
- qazın magistral kəmərlərdən paylanması prosesində texnoloji rejimin pozulması;
- təbii qazın keyfiyyətinin normativ sənədlərin tələblərinə uyğun gəlməməsi;
- boru kəməri ilə nəql olunan qazın tərkibində yaranan mexaniki qarışıqların vaxtında xaric olunmaması;
- qazın nəqli zamanı mümkün olan qaz sızmaları, qəza halları və s.

## TƏDQIQAT METODU

Təbii qazın hasilatı və boru kəmərləri ilə nəqli zamanı bir sıra çətinliklər meydana gəlir ki, bunlar da qazın tərkibində olan mexaniki qarışıqlar ilə əlaqəlidir. Mexaniki qarışıqlar dedikdə qazın hasil olunması zamanı onunla birlikdə çıxarılan qum və gil hissəcikləri, boru kəmərlərinin tikintisi başa çatdıqdan sonra qalan tikinti şlamları, boru kəmərinin daxili səthinin korroziya və erroziya məhsulları, həmçinin su və kondensat hissəcikləri başa düşülür.

Təbii qaz tərkibində olan su hissəcikləri ilə birləşərək hidratlar əmələ gətirir ki, bunlar da texnoloji və magistral qaz kəmərlərinin daxili səthində toplanaraq hidravliki müaviməti artırır, bununla da qaz kəmərinin buraxma qabiliyyəti azalmaqla yanaşı bəzi hallarda boru kəmərinin en kəsiyi tam tutulur. Hidrat birləşmələri yalnız qaz kəmərlərində deyil, həmçinin qaz quyularında da əmələ gələ bilir. Təbii qazın quyudan hasil olunması və nəqli zamanı neft-qaz qurğularında, o cümlədən qaz kəmərlərində hidrat birləşmələrinə şahid olmaq mümkündür. Qazın tərkibində olan sözü gedən bu hidrat birləşmələri dayanıqsız birləşmələr olduğuna görə temperaturun və təzyiqin dəyişməsi ilə qaz və su hissəciklərinə asanlıqla ayrılır. Xarici görünüşünə görə hidrat birləşmələri buza bənzəyən ağ kristallik hissəcikdir. Təbii qazın tərkibində $CO_2$, $H_2S$, $N_2$ və s. kimi maddələrə də rast gəlmək mümkündür. Təbii qazın tərkibində turş qazların olması hidrat birləşmələrinin yaranmasını kəskin şəkildə sürətləndirir [H.F.Mirələmov, Q.Q.İsmayılov, 2010].

Yataqladan hasil olunan təbii qazların tərkibində kükürd birləşmələri və karbon qazına da rast gəlmək mümkündür. Kükürd birləşmələri qazın emalı prosesində katalizatorları zəhərləməklə yanaşı $SO_2$ və $SO_3$ birləşmələri əmələ gətirir ki, bu birləşmələrin havada qatılığı çox olduqda insan və ətraf mühit üçün təhlükə mənbəyinə çevrilir. Hidrogen sulfid və karbon qazı su hissəcikləri ilə birləşərək polad boruları, kompressor maşınlarını və digər qaz qurğularını korroziyaya uğradır. Bu hissəciklərin qazın tərkibində olması nəql olunan məhsulun tərkibində hidrat birləşmələrini yaradır. Hal-hazırda praktikada təbii qazın tərkibində $H_2S$-in miqdarının 5,7 $mq/m^3$, kükürdün 50 $mq/m^3$-dən çox olmamasına, $CO_2$-nin isə 2%-dək olmasına xüsusi nəzarət olunur.

Təbii qazın boru kəməri ilə nəqli zamanı hidratəmələgəlmə prosesinin qarşısını almaq üçün bir sıra üsullardan istifadə olunur ki, bunlar aşağıda verilmişdir:

- qazın qızdırılması;
- qazın təzyiqin aşağı salınması;
- inhibitorların tətbiqi;
- qazın qurudulması.

Hidratəmələgəlmə prosesinin qarşısını almaq üçün qazın qızdırılması prosesi qaz kəmərində təzyiqi sabit saxlayaraq temperaturun hidratəmələgəlmə müvazinət temperaturundan yuxarı həddə saxlamaqdan ibarətdir. Bu üsulun magistral boru kəmərlərində tətbiq olunması böyük enerji xərcləri tələb etdiyi üçün tətbiq olunmur. Qızdırılma üsulu əsasən qazpaylama məntəqələrində, texnoloji kəmərlərdə tətbiq olunur. Bu zaman kəskin soyuma ilə kranların, klapanların, tənzimləyicilərin və s. cihaz və avadanlıqların belə donmasına şahid ola bilərik.

Hidratəmələgəlmənin qarşısının alınmasında təzyiqin azaldılması üsulu qaz kəmərində təzyiqin hidratəmələgəlmə təzyiqindən aşağı salınması ilə mümkün olur. Hidrat tutulmalarının ləğvi şamlar vasitəsilə qazın üfürülərək havaya buraxılması ilə həyata keçirilir. Təzyiqin aşağı salınması ilə hidratların parçalanması prosesi baş verir ki, bu üsul yalnız müsbət temperaturda hidrat tıxaclarının dağıdılmasında istifadə olunur. Əks halda bu hidrat tıxacları buz halında olan kristallara çevrilə bilir [A.R.Mustafayev, Ə.Ə.Abdullayev, 2015].

Təzyiqin aşağı salınması prosesi hidratların parçalanması üçün inhibitorlarla tətbiq olunduqda daha səmərəli hesab olunur. Əks halda təzyiqin qalxması ilə hidratlar yenidən əmələ gəlir. İnhibitorlar, su buxarları ilə doymuş qaz axınına vurulmaqla su buxarlarını qismən udaraq onları su ilə birlikdə məhula çevirir. Bununla da, suyun donma temperaturu aşağı düşür. Bu məhlullar hidratəmələgəlmə prosesinin qarşısını ya tam alır, ya da onların yaranması çox aşağı temperaturda mümkün olur. İnhibitorlara misal olaraq metil spirti (metanol), etilenqlikol, dietilenqlikol, trietilenqlikol məhlulları, klasium xlorid və s. misal göstərmək olar.

Təbii qazın boru kəməri ilə nəqli zamanı hidratəmələgəlmə prosesinin qarşısını almaq üçün ən əlverişli üsul qazın nəqlə verilməzdən qabaq qurudulmasıdır. Praktikada qazın qurudulması sorbsiya üsulu adlanır ki, bu da qaz axınının soyudulması ilə həyata keçirilir. Qazın qurudulması zamanı su buxarlarının şeh nöqtəsi qazın minimal nəql temperaturundan aşağı salınmalıdır. Bu zaman qazın nəmliyi $0{,}1\ q/m^3$-dən çox olmamalıdır [R.Ə.Pənahov, Ə.Ə.Abdullayev, S.H.Novruzova, 2012].

Təbii qazın nəqli xüsusiyyətləri onun mədənlərdə nəqlə hazırlanmasının keyfiyyətindən asılıdır. Qazın müəyyən olunmuş səviyyədə qurudulması və təmizlənməsi həyata keçirilməzsə magistral qaz kəmərində qazın tərkibinə xeyli miqdarda karbohidrogen kondensatı və lay suyu daxil olur ki, bu da öz növbəsində kəmərin buraxma qabiliyyətin azaldır, həmçinin nəql olunan qazın keyfiyyətinin də pisləşməsinə də gətirib çıxarır.

Təbii qazın qurudulması üçün absorbsiya, adsorbsiya, molekulyar ələklər, aşağı temperaturlu separasiya üsulunu misal çəkmək olar.

Boru kəməri ilə nəql olunan qazın maye sorbentlərin köməyi ilə qurudulması üsuluna absorbsiya üsulu deyilir.

Adsorbsiya üsulu ilə qurudulma prosesinin həyata keçirilməsinin mahiyyəti təbii qazın nəmliyinin bərk maddələrin sıthinə çökməsi və yaxud da səthi ilə udulmasından ibarətdir [A.M.Rəsulov, 2008].

Təbii qazın nəqli sistemlərini həyata keçirən boru kəmərlərində dağılma prosesi təkcə daxildə deyil xarici səthdə də baş verir. Korroziya hesabına baş verən dağılmalar xüsusiyyətinə görə iki yerə ayrılır:

- ümumi və ya tam korroziya;
- yerli (metalın tam səthində baş verən) korroziya.

Ümumi və ya tam korroziyaya aid olan müntəzəm korroziya metalın bütün səthi boyu eyni sürətlə, qeyri-müntəzəm korroziya isə qeyri-bərabər sürətlə gedir.

Yerli korroziya isə korroziya oyuqları ilə və kristallar arası (turş mühitdə paslanmayan poladın korroziyası) ülgücvari müşahiə olunur.

Baş vermə şəraitinin müxtəlifliyinə görə korroziya prosesi aşağıdakı növlərə bölünür:

- qaz korroziyası – metal materialların səthində atmosferdə olan qızmış qazların hesabına gedən korroziya;

- atmosfer korroziyası – metal və polad materialların səthində atmosferdə olan nəmli qazların hesabına gedən korroziya;
- maye korroziyası – şirin və duzlu sularda baş verən korroziya;
- yeralı korroziya – torpaqda və qrunt təbəqələrində baş verən korroziya.

Korroziyanın təsirinə məruz qalan qaz kəmərlərinin qalıq istismar resurslarının qiymətləndirilməsi üçün kəmərdə texniki müayinə işləri aparılmalıdır. Boru kəmərində aparılan texniki müayinə işləri qüsurları ilkin olaraq araşdıraraq konstruksiyanın anidən sıradan çıxmasını önləyir, təhlükəsiz və etibarlı istismarını mümkün edir.

Neft-qaz mədən qurğularının diaqnostikası konstruksiyanın istismarı dövründə çox böyük əhəmiyyətə malikdir. Bunun əsas məqsədi potensial təhlükələrin aşkara çıxması, etibarlı istifadəsinə davam edib etməməsi və onların aradan qaldırılması üçün bərpa-gücləndirmə işlərinin görülməsidir. Buna görə də, texniki müayinə zamanı aşınma, korroziya, uyğunsuzluq, dislokasiya və s. ehtimal olunan hissələrə xüsusi diqqət yetirilməli, təhlükəsiz iş prinsipinin təmin olunması üçün qabaqlayıcı tədbirlər görülməlidir. Bu tədbirlərə əsasən neft-qaz kəmərlərinin təhlükəsiz iş prinsipinin təmin olunması üçün konstruksiyanın vaxtaşırı yoxlanılması tələb olunur. Bunun üçün texniki diaqnostka işlərinə başlamazdan öncə aparılan işlərin ardıcıllığı qeyd olunan proqram tərtib olunur. Bu proqram əsasında işlər ardıcı olaraq həyata keçirilərək neft-qaz kəmərlərinin qalıq istismar resurslarının qiymətləndirilməsi aparılır.

Qaz kəmərinin isitmar çətinliyini aradan qaldırmaq məqsədi ilə kəmərin möhkəmliyə və dayanıqlığa hesabatı aparılır. Bunun üçün ilk öncə dağıdıcı olmayan müayinə metodu ilə kəmərin müxtəlif elementlərinin divar qalınlığı müəyyən olunur. Bu zaman "Olympus 27 MG", "DM5E", "Взлет УТ" və s. kimi ultrasəs prinsipinə əsaslanan qalınlıqölçən cihazlardan istifadə olunur.




**Şəkil 1.** Ultrasəs müayinə ötürücüsü

Ultrasəs dalğaları bir ara səthlə qarşılaşana qədər bir düz xətt və sabit sürətlə material daxilinə nüfuz edir. Səthi interfeysdə dalğa enerjisinin bəziləri əks olunur və bəziləri ötürülür. Əks və ya ötürülən enerjinin miqdarı aşkar edilir və monitorda ölçü haqqında məlumat verir. Ultrasəs müayinəsi universal müayinə metodudur və bir sıra müayinə metodları ilə həyata keçirilir. Ultrasəs dalğalarının köməyi ilə boru kəmərinin divar qalınlığı müəyyən olunaraq hesabi qalınlıq ilə müqayisə olunur. Müqayisənin nəticəsinə əsasən boru kəmərinin qalıq istismar resursu müəyyən olunur.

Boru xəttinin verilmiş P (MPa) işçi (normativ) təzyiq altında lazımi möhkəmliyini təmin edən hesabi qalınlığı δ (mm) aşağıdakı düsturla hesablanır:

$$\delta = \frac{\gamma_f \cdot k \cdot P \cdot D}{2(R + 0{,}6\gamma_f \cdot P)}$$

Dartılmaya (sıxılmaya) hesabi müqavimətlər:

$$R = min\left[\frac{R_1^n \cdot m_2}{k_1 \cdot \gamma_n}; \frac{R_2^n \cdot m_2}{k_2 \cdot \gamma_n}\right]$$

burada:

P - işçi təzyiq, MPa;

$\gamma_f$ - yükə görə etibarlılıq əmsalı, $\gamma_f$=1,1;

$k$ - boruların və birləşdirici detalların yük daşıma əmsalı;
x/h → ($k$=1); d → ($k$=1,3)
$D$ - borunun xarici diametri, mm;
R - polad üçün qırılmada buraxılabilən gərginlik həddidir;
$R_1^n$ - dağılmada normativ müqavimət, Mpa; kqq/sm2;
$R_2^n$ - axma həddi, Mpa; kqq/sm2;
$m_2$ - boru xəttinin iş şəraiti əmsalı;
$k_1$ - materiala görə etibarlılıq əmsalı olub;
$\gamma_n$ - boru xəttinin təyinatına görə etibarlılıq əmsalı.

Kəmərin buraxılabilən qalınlığı ölçmələr zamanı müəyyən olunan faktiki qiymətlərlə müayisə olunaraq kəmərin qalıq istismar resursu qiymətləndirilir [AzDTN 2.9-2, 2009].

Boru kəmərlərinin texniki diaqnostikasının kəmərin qalıq istismar resursunun qiymətləndirilməsi ilə sənaye təhlükəsizliyinin təmin olunmasıdır. Nəzərdə tutulmuş bu məqsədə çatmaq üçün diaqnostikanın başlıca məsələləri aşağıda göstərilmişdir [СП 34-116-97, 1998].

- qüsurun müəyyən olunması və onun əmələ gəlməsinin başlıca səbəbi həmçinin müəyyən olunan qüsurları nəzərə alaraq kəmərin texniki vəziyyətinin müəyyən edilməsi;
- müayinə aparılan kəmərin texniki vəziyyətinin qabaqcadan proqnozlaşdırılması və bununla yanaşı qalıq istismar resursunun qiymətləndirilməsi;
- kəmərin istismara yararlılıq qabiliyyətinin müddəti barəsində ehtimalların təyin olunması.

Neft-qaz sahəsində istismar zamanı istifadə olunan qurğuların xüsusilə də boru kəmərlərinin layihələndirilməsi və hesabatı zamanı bir sıra komputer proqramlarından da istifadə oluna bilər ki, bu proqramlar vasitəsi ilə boru kəməri modelləşdirilir və verilən şərtlərə uyğun olaraq model üzərində hesabatlar aparılır. Neft-qaz qurğularının hesablanmasında MOSES, GT STRUDL, SACS5.7 V8i, STAAD Pro, SESAM kimi proqram təminatlarından istifadə oluna bilər.

**NƏTICƏ**

Qaz kəmərinin istismar xüsusiyyətinin nəzərə alınmasının vacibliyi, yaranan mürəkkəbləşmələrin vaxtında aradan qaldırılması məqsədilə qazın komponent tərkibinin tədqiq olunmasının zəruriliyi göstərilmişdir.

Qaz kəmərlərinin istismarı zamanı daxili erroziya və xarici korroziya ilə nəticələnən proseslərin baş vermə səbəbləri araşdırılmış və bu kimi halların aradan qaldırılması üçün üsul və vasitələr haqqında məlumat verilmişdir.

Kəmərin möhkəmliyə və dayanıqlığa hesabatı aparılaraq kəmərin qalıq istismar resurslarının qiymətləndirilməsi məsələsi araşdırılmışdır.

Təbii qazın nəqlini həyata keçirən boru kəmərlərinin qalıq istismar resurslarının qiymətləndirilməsi üçün paralel olaraq həm analitik, həm də kompüter modelləşməsi metodunun tətbiqi təklif edilir.

**ƏDƏBIYYAT SIYAHISI**

1. D.Ə.İsgəndərov. (2014). Neft və qaz çıxarma sənayesində çalışan işçilər üçün məlumat kitabı Səh. 105-107.
2. H.F.Mirələmov, Q.Q.İsmayılov. (2010). Neftin, qazın boru kəmərləri ilə nəqli, Səh. 180-189.
3. A.R.Mustafayev, Ə.Ə.Abdullayev, R.Ə.Pənahov, N.N.Sultanov, E.V.Qədəşova – Qazların nəqlə hazırlanması, Bakı 2015, Səh 52-65
4. A.M.Rəsulov. (2008). Təbii qazların yığılması, nəqlə hazırlanması və istifadəsi, Səh 128-138
5. R.Ə.Pənahov, Ə.Ə.Abdullayev, S.H.Novruzova. (2012). Qaz hidratları, Səh 108-121

# İXTİYARİ İSTİQAMƏTDƏ HƏRƏKƏT EDƏN PİYADANIN VURULMASI HADİSƏLƏRİNİN EKSPERT TƏDQİQATLARI

**ASƏF ƏLİYEV**
Naxçıvan Dövlət Universiteti
"Nəqliyyat mühəndisliyi və texniki fənlər" kafedrası
aliyevasef@ndu.edu.az

**TƏRXAN ORUCOV**
Naxçıvan Dövlət Universiteti
"Nəqliyyat mühəndisliyi və texniki fənlər" kafedrası
orucovterxan@ndu.edu.az

**XÜLASƏ**

Təqdim olunan işdə ixtiyari istiqamətdə hərəkət edən piyadanın vurulması hadisəsinin ekspert tədqiqatı aparılmışdır. Bu hadisələrə iki variantda nəqliyyat vasitəsinin qabaq hissəsi ilə iti bucaq və kor bucaq istiqamətində hərəkət edən piyadanın vurulmasına baxılmışdır. Hər iki variantda hadisənin baş verdiyi ana qədər verilmiş yol şəraitində hadisənin qarşısını almaq üçün sürücünün vaxtında tormozlama aparmaq imkanının olub-olmaması müəyyən edilmişdir.

**AÇAR SÖZLƏR:** ekspert tədqiqatı, nəqliyyat vasitəsi, piyada, hərəkət sürəti, görmə məsafəsi

**EXPERT RESEARCHES OF THE PEDESTRIAN HIT ACCIDENTS MOVING IN THE FREE DIRECTION**

**ABSTRACT**

The presented research work studies expert researches of the pedestrian hit accidents moving in the free direction. These accidents are viewed in two variants which pedestrians are hit by the front part of the vehicle moving in the direction of acute angle and obtuse angle. In both variants, driver's chance of braking was determined in the pre-accident road cases.

**KEY WORDS:** expert research, transport means, pedestrian, driving speed, distance of vision

## GİRİŞ

Avtomobil parkının durmadan inkişafı, yük və sərnişin daşımalarının artması yol nəqliyyat hadisələri nəticəsində insanların ölümü, yaralanması halları və maddi itkilərin artmasına səbəb olur. Yol nəqliyyat hadisələrinin öyrənilməsində ən çətin, həm də tam öyrənilməyən məsələ onların baş vermə səbəblərinin müəyyən edilməsidir. Ona görə də, nəqliyyat vasitələri ilə piyadaların vurulması hadisələrinin öyrənilməsi və araşdırılması öz aktuallığını saxlamaqdadır.

Ümumiyyətlə ekspertiza aparılarkən piyadanın vurulması hadisələri müşahidəliyin və görünmənin məhdudluğu xarakterinə görə təsnif olunarkən aşağıdakı əlamətləri nəzərdən keçirilir: məhdud olmayan görünmə və müşahidəlik şəraitində piyadanın vurulması; müşahidəliyin tərpənməz obyektlə məhdudlaşdırıldığı şəraitdə piyadanın vurulması; müşahidəliyin qarşıdan gələn və eyni istiqamətdə hərəkət edən nəqliyyat vasitəsi ilə məhdudlaşdırıldığı şəraitdə piyadanın vurulması; görünmənin məhdudluğu şəraitində piyadanın vurulması.

Məhdud olmayan görmə şəaitində piyadanın vurulması hadisələrinin ekspert tədqiqatı [1]-də, tərpənməz maneə ilə məhdudlaşan müşahidəlik şəraitində piyadanin vurulmasi hadisələrinin ekspert tədqiqatı [2]-də, məhdud görmə şəraitində piyadanın vurulması hadisələrinin ekspert tədqiqatları isə [3]-də aparılmışdır.

Bu məqalədə isə ixtiyari istiqamətdə hərəkət edən piyadanın vurulması hadisələrinin ekspert tədqiqatları nəzərdən keçirilmişdir.

## TƏDQİQAT METODU

İxtiyari istiqamətdə hərəkət edən piyadanın vurulması hadisəsi dedikdə nəqliyyat vasitəsinin hərəkəti istiqamətində hərəkət hissəsinin sərhəddi ilə iti və kor bucaq altında hərəkət edən piyadanın vurulması hadisəsi başa düşülür. İti bucaq altında hərəkət edən piyadanın nəqliyyat vasitəsinin qabaq künc hissəsi ilə vurulması hadisəsinin sxemi 1 saylı şəkildə göstərilmişdir. Sxemə əsasən

müəyyən etmək olar ki, piyadanın təhlükəli zonanın sərhəddini kəsdiyi anda sürücü görmə sahəsində onu aşkar etməyə başlayır [4].




Şəkil 1. Nəqliyyat vasitəsinin qabaq hissəsi ilə iti bucaq istiqamətində hərəkət edən piyadanın vurulması sxemi

Sxemdə bu, 1-ci vəziyyətlə qeyd olunmuşdur. $T$ müddəti ərzində nəqliyyat vasitəsi (NV) $vT$ qədər, piyada isə $v_pT$ məsafəsini qət edəcəkdir (Şəkil 2). Şəkildə bu, 2-ci vəziyyətlə qeyd olunmuşdur.




Şəkil 2. NV-nin qabaq hissəsi ilə iti bucaq istiqamətində hərəkət edən piyadanın güman edilən vurulması sxemi

Sonra isə NV sürətini azaldaraq yavaşıma hərəkətinə başlayır. Burada, tormozlamanın aparılmasına baxmayaraq piyadanın vurulduqda (NV-nin sağ tərəfindən $l_y$, məsafəsində yerləşir) müəyyən $t$ müddətində aşağıdakı qədər yerini dəyişəcəkdir:

$$S_a^{/} = vT + vt - \frac{jt^2}{2}.$$

Piyadanın $t$ müddətində getdiyi yolun NV-nin hərəkət istiqaməti üzərində proyeksiyası aşağıdakı kimi ifadə olunur:

$$S_p^{/} \cos\alpha = v_p \cos\alpha (T + t).$$

Əgər tormozlama aparılmasına baxmayaraq, NV piyadanı vuracaqsa:

$$S_a^{/} = S_{gr} + S_p^{/} \cos\alpha \quad (1)$$

Burada, $S_{gr}$ təhlükəli vəziyyətin yaranması anında NV ilə piyada arasında NV-nin hərəkət istiqamətində ölçülmüş ara məsafəsi və ya piyadanı konkret görmə məsafəsidir. Şəkilə görə yaza bilərik:

$$S_{gr} = S_a - S_p \cos\alpha = (v - v_p \cos\alpha) t_p.$$

Burada, $S_a$ -piyadanın vurulduğu ana qədər NV-nin yerdəyişməsi; $S_p$-piyadanın təhlükəli zonanın sərhəddindən vurulma yerinə qədər getdiyi yoldur.

Bu məsafələr aşağıdakı müvafiq düsturlarla ifadə olunurlar:

$$S_a = \frac{S_p v}{v_p} = \frac{v(\Delta_y + l_y)}{v_p \sin\alpha};$$

$$S_p = \frac{\Delta_y + l_y}{\sin\alpha}.$$

Təhlükəli vəziyyətin yaranması anından vurulma anına qədər piyadanın hərəkət vaxtı aşağıdakı düsturla ifadə olunur:

$$t_p = \frac{\Delta_y + l_y}{v_p \sin\alpha}.$$

$S_a^{/}$, $S_{gr}^{/}$ və $S_p^{/}$-in qiymətlərini (1) ifadəsində yerinə qoyub müəyyən çevirmələr aparsaq, *t*-yə görə aşağıdıkı kvadrat tənliyi alarıq:

$$\frac{t^2 - 2t(v - v_p\cos\alpha)}{j} + \frac{2(v - v_p\cos\alpha)(t_p - T)}{j} = 0 \quad (2)$$

Bu tənliyin kökləri xəyali köklər olarsa, piyadanın vurulması halı mümkün deyildir. Ona görə ki, NV piyadanın yerdəyişmə trayektoriyasına çatmamış dayanacaqdır. Deməli, sürücü vaxtında tormozlama apararaq, hadisənin qarşısını ala bilərdi. Əgər tənliyin bir kökü olarsa, piyada ilə kontakt anında tormozlanmış avtomobilin sürəti $v_p$ *cosα*-ya qədər azaldığından, zərbə qüvvəsi zəif olacaqdır. Tənliyin iki həqiqi kökü olduqda isə vaxtında tormozlama aparılsaydı belə, piyadanın vurulması halı qaçılmazdır. Ancaq bu halda qəti nəticəyə gəlmək olmaz ki, hadisənin qarşısı alınmazdır. Belə ki, NV-nin ölçüləri məhdud olduğundan tənliyin kiçik qiymətli kökü müddətində piyada onun hərəkət zolağından çıxa bilərdi. İndi isə piyadanın vurulmasının qarşısının alınmasımın texniki imkanını araşdıraq.

NV-nin qəfil tormozlanması halında piyadanın getdiyi yol aşağıdakı kimi olacaqdır:

$$S_p^{/} = v_p(T + t_1).$$

Burada, $t_1$, tənliyin həqiqi köklərindən ən kiçiyidir.

NV-nin sağ qabarit nöqtəsindən piyadanı vuran nöqtəsinə qədər olan məsafə belə ifadə olunacaqdır:

$$l_y^{/} = v_p(T + t_1)\sin\alpha - \Delta_y.$$

Tormozlanmış NV nin hərəkət vaxtı bərabərsürətli hərəkət vaxtından çox olduğundan, aşağıdakı şərt həmişə ödənəcəkdir:

$$l_y^{/} \geq l_y.$$

Digər tərəfdən:

$$l_{y\max}^{/} = B_a + \Delta_T.$$

Piyadanın vurulmasının qaçılmazlığı şərti aşağıdakı kimi ifadə olunur:

$$l_y < l_y^{/} \leq (B_a + \Delta_T).$$

Bu halda vaxtında tormozlanmanın aparılması şəraitində piyadanın təhlükəsizliyi şərti aşağıdakı kimi ifadə olunur:

$$l_y^{/} \succ (B_a + \Delta_T).$$

$$l_y^{/} > (B_a + \Delta_T).$$

Kor bucaq altında hərəkət edən piyadanın vurulması sxemi 3 saylı şəkildə göstərilmişdir. (2) ifadəsini kor bucaq istiqamətində hərəkət edən piyadanın vurulması hadisəsinə də tətbiq edə bilərik. Əlavə bucağı 180°-α qəbul edərək, həmin ifadəni aşağıdakı şəkildə yazarıq:

$$\frac{t^2 - 2t(v + v_p\cos\beta)}{j} + \frac{2(v + v_p\cos\beta)(t_p - T)}{j} = 0 \quad (3)$$

Əgər NV vaxtında tormozlanmış olsaydı, onun sürətinin piyadanın sürətinin hərəkət istiqaməti üzərindəki proyeksiyasına bərabərləşdiyi ana qədər keçən vaxt aşağıdakı düsturla ifadə olunur:

$$t_a^{/} = \frac{T + (v - v_p \cos\alpha)}{j}$$




Şəkil 3. NV-nin qabaq hissəsi ilə kor bucaq
istiqamətində hərəkət edən piyadanın vurulması sxemi

Bu müddət ərzində tormozlanmış NV-nin yerdəyişmə məsafəsi belə ifadə olunacaqdır:

$$S_a^{/} = \frac{vT + (v^2 - v_p^{/} \cos^2\alpha)}{2j}.$$

NV-nin hərəkət sürətinin təhlükəsiz həddə qədər azalması yolunun uzunluğu onun hadisə yerindən uzaqlıq məsafəsindən böyük olmadıqda piyadanın təhlükəsizliyi təmin edilir. Yəni, bu halda hadisənin qarşısının alınması şərti aşağıdakı kimi ifadə olunur:

$$S_a^{/} - S_p^{/} \cos\alpha \le S_u.$$

Burada, $S_p^{/}$ -$t_a^{/}$ müddətində piyadanın getdiyi yol olub, aşağıdakı kimi hesablanır:

$$S_p^{/} = v_p t_a^{/}.$$

Bu ifadədəki kəmiyyyətlərin muvafiq qiymətlərini yerinə yazsaq, piyadanın təhlükəsizliyi şərtini aşağıdakı kimi ifadə etmək olar:

$$t_p\text{-}T > \frac{v - v_p \cos\alpha}{2j}.$$

Bu bərabərsizliyin sol tərəfində hərəkət sürətini azaltmaq üçün sürücünün sərəncamında olan vaxt, sağ tərəfində isə lazım olan minimum vaxt öz əksini tapmışdır [5].

**NƏTİCƏ**

Bütün bu deyilənlər təbii ki, praktikada rast gəlinən mümkün olan bütün variantları əhatə edə bilməz. Bu, hər şeydən əvvəl, onunla izah olunur ki, həm sürücü, həm də piyada hərəkətlərini praqnozlaşdırmaq mümkün olmayan bioloji varlıqlardır.

Məqalədə ixtiyari istiqamətdə hərəkət edən piyadanın vurulması hadisəsi tədqiq edilməklə, NV-nin piyadanı vurmamışdan əvvəl onun tormozlama aparmaq imkanının olub-olmaması müəyyən edilmişdir. Bu da ekspertizanın aparılması üçün mühüm əhəmiyyətə malikdir. Bununla da, ekspert yol nəqliyyat hadisələrinin səbəbkarını müəyyənləşdirməklə tədqiqatın düzgün aparılmasına nail olmuş olur.

**ƏDƏBİYYAT SİYAHISI**

1. Əliyev A.A. Məhdud olmayan görmə şəraitində piyadanın vurulması hadisələrinin ekspert tədqiqatı. Bakı Mühəndislik Universiteti. Gənc tədqiqatçıların V Beynəlxalq elmi konfransı. Bakı: 2021, səh.104-109.
2. Əliyev A.A. Tərpənməz maneə ilə məhdudlaşan müşahidəlik şəraitində piyadanın vurulması

hadisələrinin ekspert tədqiqatı. Bakı Mühəndislik Universiteti. Gənc tədqiqatçıların VI Beynəlxalq elmi konfransı. Bakı: 2022, səh.836-838.
3. Əliyev A.A. Məhdud görmə şəraitində piyadanın vurulması hadisələrinin ekspert tədqiqatları. Bakı Mühəndislik Universiteti. Gənc tədqiqatçıların VII Beynəlxalq elmi konfransı. Bakı: 2023, səh.1166-1171.
4. Bayramov R.P., Çobanzadə İ.M. Yol nəqliyyat hadisələrinin tədqiqi və avtotexniki ekspertizası. Dərslik. Bakı, " Təhsil ", 2005, 350 səh.
5. Скирковский С. В., Капский Д. В. Экпертиза дорожно-транспортных происшествий: учеб. пособие / М-во трансп. и коммуникаций Респ. Беларусь, Белорус. гос. ун-т трансп. - Гомель : БелГУТ, 2018.-173 с.

**MÜƏLLİFLƏR HAQQINDA MƏLUMAT**

**Əliyev Asəf Asif oğlu-**Naxçıvan Dövlət Universitetinin "Nəqliyyat mühəndisliyi və texniki fənlər" kafedrasının dosenti, riyaziyyat üzrə fəlsəfə doktoru.

**Orucov Tərxan Zakir oğlu-** Naxçıvan Dövlət Universitetinin "Nəqliyyat mühəndisliyi və texniki fənlər" kafedrasının müəllimi.

# YENI KONSTRUKTIV HƏLL ƏSASINDA METRO ESKALATORUNUN RESURSUNUN ARTIRILMASI
# INCREASING THE LIFE TIME OF THE METRO ESCALATOR ON THE BASIS OF A NEW CONSTRIVE SOLUTION

**GÜNAY ZƏRBALIYEVA CABIR**
Bakı Mühəndislik Universiteti
Mühəndislik fakultəsi/Mühəndislik elmləri
*gzarbaliyeva@beu.edu.az*
BAKI, AZƏRBAYCAN

**XÜLASƏ**

Məqalədə eskalatorunun iş müddətinin artırılması üçün nəzərdə tutlmuş yeni konstruktiv təklif nəzərdən keçirilmişdir. Bu məqsədlə eskalator intiqalının reduktorunun planetar reduktorla əvəz olunması təklif olunmuşdur. Bu isə öz növbəsində faydalı iş əmsalının artmasına və deməli, elektrik enerjisinə qənaət etməyə imkan verir.

**AÇAR SÖZLƏR:** eskalator, intiqal, xidmət müddəti, planetar reduktor, faydalı iş əmsalı

**SUMMARY:** In the article, a new constructive solution has been worked for increasing the life time of the metro escalator. For this purpose, it was proposed to replace the existing cylindrical gearbox of the escalator transmission with a planetary gearbox. At the result the efficiency of the driving mechanism increased and, therefore, may be to save electricity.

**KEYWORDS:** escalator, drive, term of service, planetary reducer, efficiency

## GIRIŞ

Müasir dünyamızda iri şəhərlərin ən böyük problemlərindən biri də sərnişin daşınmasıdır. Avtobus, trolleybus, tramvay və taksi nəqliyyatı, təbii ki, bu problemin öhdəsindən gələ bilməz. Bu işdə metropolitenlərin məsuliyyət dərəcəsi olduqca böyükdür. Əhalisi təqribən 3 milyon olan Bakı şəhərində gün ərzində 600 minə yaxın insan metropolitenin xidmətindən istifadə edir. Sərnişinlərin metro stansiyalarına rahat girib-çıxması üçün eskalatorlardan istifadə edilir.

Eskalatorun xidmət müddəti 50 il müəyyən olunmuşdur. Lakin zəruri xidmətin göstərildiyi halda xidmət müddətinin 60 və hətta 70 ilə qədər artırılmasına istehsalçı müəssisə tərəfindən icazə verilir.

Elmi yenillik olaraq eskalatorun xidmət müddətinin artırılmasını nəzərdə tutan konstruktiv tədbir təklif edilmişdir. Yəni, eskalator intiqalının reduktorunun planetar reduktorla əvəz olunması təklif olunmuşdur.

## TƏDQIQAT METODU

Finlyandiyanın lift istehsal edən KONE şirkəti KONE Eco3000 eskalatoru üçün yeni intiqal tərtib etmişdir (Şəkil 1). Bu konstruksiyanın prinsipial fərqi, dartı zəncirləri və sürahi qurğusu üçün xüsusi olaraq işlənib hazırlanmış TransVario planetar reduktorunun tətbiq olunmasıdır. Bu reduktor, eskalatorun yuxarı hissəsində pilləkən örtüyünün daxilində yerləşdirilir.

Elektrik mühərrikindən (1) fırlanma momenti planetar reduktor (3) və əsas ötürmə (4) vasitəsi ilə döşəmə örtüyünün intiqalının ulduzcuqlarına (6) və sürahi intiqalının qasnaqlarına (8) ötürülür. Əsas ötürmə, 3 ədəd silindrik dişli çarxdan ibarət olan reduktordur. İntiqalda asinxron elektrik mühərriki tətbiq edilmişdir. Əsas valın (5) dayaqları (7) metalkonstruksiya üzərində yerləşdirilmişdir.

Planetar reduktor (Şəkil 2) 3 pilləlidir. Bunlardan ilk ikisinin 3, üçüncüsünün isə 5 satelliti vardır.




**Şəkil 1.** Planetar intiqal

1 – elektrik mühərriki; 2 – işçi əyləc; 3 – planetar reduktor; 4 – əsas ötürmə; 5 – əsas val; 6 – intiqal ulduzcuğu; 7 – əsas valın dayağı; 8 – sürahi intiqalının qasnağı




**Şəkil 2.** Planetar reduktor və əsas ötürmə

**NƏTICƏ**

Planetar reduktorlu KONE eskalatorlarının əsas üstünlüyü, digər növdən olan reduktorları (silindrik, sonsuz vint və hipoid) olan eskalatorlarla müqayisədə intiqalın yüksək faydalı iş əmsalınun olmasıdır ( 96%). Nəticədə elektrik enerjisinin istehlakına 30 % qənaət edilir. Bu intiqal, gün ərzində 16 saat işləməklə 100 min saat iş həcmi qədər xidmət göstərə bilir. Eskalatorun dartı zənciri elə layihə edilmişdir ki, xidmət müddəti ərzində onun yağlanmasına ehtiyac olmur.

**ƏDƏBIYYAT SIYAHISI**

1. Бабий А.С., Гришин А.В. (2022). Конструкции приводов современных экскалаторов, выпускаемых отечественной и зарубежной промышленностью, 32 с.
2. ООО «Конструктор». СПб. (2010). Эскалатор тоннельный ЭТХ-11,6/17,3.00.000. Руководство по эксплуатации ЭТХ-11,6/17,3.00.000 РЭ.
3. https://www.transportcenter.org/images/uploads/publications/KonePacket. pdf
4. Санкт-Петербургское ГУП. «Петербургский метрополитен». СПб. (2011). Инструкция по техническому обслуживанию эскалаторов типа Е55Т, Е75Т.
5. Khristich .V (2010). St. Peterburg Metro Spasskaya Station II. Elevator World, P.2-5.

# SƏRNİŞİN LİFTLƏRİNİN TƏDQİQİ

**Rəhbərlər:** Ph.D Lətif Məmədov, Ph.D Hüseyn Mirzəyev
**Tələbə:** Əbdülrəhman Heydərli(EEM), Oumar Mahamat Qusman Hassan(MM)
Bakı Mühəndislik Universiteti
**Fakültə:** Mühəndislik, **İxtisas**: Elektrik elektronika mühəndisliyi,Mexanika mühəndisliyi
***E-mail:*** *humirzeyev@beu.edu.az, lemammadov@beu.edu.az*
*eheyderli@std.beu.edu.az, omahamatousmanhassanguedet@std.beu.edu.az.*
Bakı, Azərbaycan

**Xülasə:** Lift qurğusunun işinin özünəməxsusluğu ondan ibarətdir ki, istismar müddəti bir çox təsadüfi dəyişənlərin funksiyasıdır. Qüvvə effektlərinin formalaşmasının riyazi modelləri elektromexaniki liftin bir sərbəstlik dərəcəsi olan dinamik sistem kimi təqdim edilməsinə əsaslanır. Dartı troslarının statik gərilmələrinin və yük mühərriyinin qüvvə momentlərin hesablanması üçün riyazi ifadələr alınır. Burada dinamik məsələlər həll edildi, düşən yüklər müəyyən edildi, lift qurğusunun iş rejimlərinin simulyasiya modelləşdirilməsini həyata keçirmək üçün qiymətlər müəyyən edildi.Bu məsələlər nəzərə alınaraq liftin daxili və xarici detallarından istifadə edərək lift modeli hazırlandı.Lift modeli hazırlanarkən modelin mexanikasına və avtomatlaşdırılmasına xüsüsi diqqət yetirildi.Yeni nəsil liftləri meyar qəbul edib, hal-hazırdakı modern liftlərdə teciz olunmuş mexaniki və elektronik detal,avadanlıq və cihazların kicik formalarından istifadə edərək hazırlanmış model günümüzün yeni texnalogiyalarına və standartlarına cavab verir.Bu modelin hazırlanması zamanı Mexanika və Elektronika sahələrinə uyğun olaraq bilik və bacarıqlarımızı inkişaf etdirdik.Lft texnalogiyalarında istifadə olunan detal,cihaz və avadanlıqlar ilə yaxından tanış olaraq onların iş prinsiplərini dərindən öyrəndik.

**Abstract:**The peculiarity of elevator operation is that service life is a function of many random variables. Mathematical models of the formation of force effects are based on presenting the electromechanical elevator as a dynamic system with one degree of freedom. Mathematical expressions are obtained for the calculation of the static tension of the traction cables and the force moments of the load engine. Here, the dynamic issues were solved, the falling loads were determined, and the values were determined to carry out the simulation modeling of the operating modes of the

elevator unit. Considering these issues, an elevator model was prepared using the internal and external details of the elevator. While preparing the elevator model, special attention was paid to the mechanics and automation of the model. the model made using it meets the new technologies and standards of today. During the development of this model, we developed our knowledge and skills in accordance with the fields of Mechanics and Electronics. By getting to know the details, devices and equipment used in lift technologies, we study their working principles in depth.

**Açar sözlər:** sərnişin lifti, sərbəstlik dərəcəsi, statik gərilmə, təsadüfi təsirlər, işin riyazi modelləri, dinamik yüklər, güc yükləmə rejimi, kinematik göstəricilər, simulyasiya modelləşdirməsi, texniki xidmət proqramı.

**Key words:** passenger elevator, degree of freedom, static tension, random effects, mathematical models of operation, dynamic loads, force loading mode, kinematics, simulation modeling, maintenance program.

**Məsələnin qoyuluşu**. Sərnişin liflərinin təkimləşdirilmiş riyazi modelinin qurulması, təhlükəsizlik qaydalarının əsaslı şəkildə möhkəmləndirilməsi, mühərrikin dinamiki yükə dayanıqlı işləməsi, yük dartı trosunun gərilmə dərəcəsinin müvafiq etibarlılığının hesablanması, sərnişinlərin etibarlı təhlükəsizliyinin təminatı, modelinin simulyasya edilməsi məsələlərinə baxılmasından ibarətdir.

Əsas normativ sənədə əsasən, lift şaquli meyl bucağı 15°-dən çox olmayan, sərt bələdçilər boyunca hərəkət edən kabinədə insanları və (və ya) yükləri bir səviyyədən digərinə keçirmək üçün nəzərdə tutulmuş qurğudur. kütləvi istifadə üçün unikal nəqliyyat vasitəsidir. Sərnişinin özü və ya yüksək ixtisas tələb etməyən personal tərəfindən idarə olunur[1].Ona görə də lift sərnişinlərin daşınması zamanı bütün təhlükəsizlik və rahatlıq tələblərinə cavab verməlidir. Lift təhlükəli olan mürəkkəb elektromexaniki qurğulardan biridir [2]. Liftlərin dizaynı, istehsalı, quraşdırılması və istismarı zamanı texniki reqlamentlərdə və digər normativ sənədlərdə müəyyən edilmiş ciddi tələblərə tabedir. Sürücünün növündən asılı olaraq liftlər elektromexaniki və hidravlikdir [3]. Elektromexaniki liftlərdə qaldırıcı mexanizm kimi elektrik mühərrikindən, sürət qutusundan və dartma çarxından ibarət idarəedicidən, hidravlik liftlərdə isə translyasiyalı hidravlik ötürücüdən istifadə olunur. Sərnişin liftinin konstruktiv xarici görnüş sxemi (şəkil 1).




Şəkil 1. Sərnişin liftinin konstruktiv görünüşü:

Bu məqalədə tədqiqat mövzusu elektromexaniki dişli ötürücülü liftlərdir. Lift avadanlıqlarına qoyulan ən mühüm tələblər sərnişinlərin təhlükəsizliyi və rahatlığıdır ki, bu da şaquli nəqliyyat quraşdırma parametrlərinin düzgün seçilməsi və liftin daim yaxşı vəziyyətdə saxlanılması ilə təmin edilə bilər [4-5].

Liftin təhlükəsizlik göstəricisi əsasən bu amillər qruplarından ibarətdirlər, lift avadanlıqlarının istehsalının keyfiyyətinin artırılması, yükdaşıyan elementlərə düşən yükün səviyyəsi və sərf olunan xidmət müddəti nəzərə alınmaqla onun standart qiymətlərə uyğun olması, avamlı texniki xidmət proqramının hazırlanması vacib şərtlərdən hesab olunur.

"Nəqliyyatın rahatlığı" göstəricisi milli standart tərəfindən tətbiq edilmişdir. O, binaya daxil olan insanların liftlərə çıxışı olan əsas internat mərtəbəsində lift vaqonunun müəyyən istiqamətdə iki ardıcıl gedişi arasındakı müddət kimi ifadə edilən liftlərin hərəkət yolunu xarakterizə edir. Beləliklə, rahatlıq səviyyəsi sərnişinin növbəti reysi gözlədiyi şərti vaxtdır. Nəzərə alın ki, nəqliyyat rahatlığının göstəricisi təsadüfi dəyişəndir və təbii olaraq real şəraitdə minimumdan maksimum qiymətlərə qədər dəyişir. Rahatlıq göstəricisinin ən təmsiledici dəyəri gündəlik əməliyyatın müxtəlif dövrləri üçün orta dəyər ola bilər.

Liftin texniki xidmət proqramlarını nəzərdən keçirdikdə lift avadanlığına texniki xidmətin tezliyi iki əsas sənəd əsasında müəyyən edilir: avadanlıq pasportu və texniki qaydalar. Tezliyin bütün lift qurğuları üçün eyni olduğu güman edilir.

Qeyd etmək lazımdır ki, nəzərdən keçirilən işlərdə liftlərə texniki xidmətin tezliyi müəyyən edilərkən mərtəbələrin və mənzillərin əhalinin sıxlığı, o cümlədən elektrik yüklərinin səviyyəsi, liftin faktiki işləmə müddəti, sayı kimi parametrlər nəzərə alınır. vaxt vahidi üçün əsas sürücünün işə salınması nəzərə alınmır.




Eyni mərtəbə sayına, eyni tipli və sayda liftlərə baxmayaraq, oxşar binalar həm sakinlərin sayına, həm də lift avadanlığının tədrici istismarına görə əhəmiyyətli dərəcədə fərqlənə bilər.Bu, xalis iş vaxtına əhəmiyyətli dərəcədə təsir göstərir. resursdan istifadənin real sürətini, hər bir lift avadanlığının istismar müddətini dəyişən lift avadanlığının məruz qaldığı ekvivalent yüklər. Bu halda, onların planlaşdırılan təyin edilmiş xidmət müddəti eyni olacaqdır. Tədqiqat, layihə və istismar təşkilatlarının inkişaflarında liftə texniki xidmət proqramlarının layihələndirilməsi üçün analitik və mühəndislik üsulları da mövcud deyil. Lift sisteminin və proqramının layihələndirilməsi üçün metodoloji əsasın olmaması bəzi hallarda xərclərin eyni vaxtda artması ilə tələb olunan təmir işlərinin həcminin artıq olmasına, digərlərində təmir intervalının əsassız artmasına səbəb olur. Göstəricilərin azalması lift qurğularının istismarı zamanı etibarlılıq və ümumi təhlükəsizlik.

Lazımi və kifayət qədər təmir təsirləri ilə lift qurğularının təhlükəsizlik və rahatlıq səviyyəsini qorumaq üçün bu iş aşağıdakı istiqamətlərdə tədqiqatları nəzərdə tutur:

— real ekvivalent yüklərin və iş rejimlərinin qurulması üçün simulyasiyadan istifadə;

— onun köməyi ilə liftin güc elementlərinin yük səviyyəsinin qiymətləndirilməsini formalaşdırmaq mümkün olan kompleks göstəricinin əsaslandırılması;

— həm artıq işləyən, həm də layihələndirilmiş binalarda liftlərə texniki xidmətin tezliyi ilə bağlı tövsiyələrin hazırlanması. Bu, qəbul edilmiş dizayn qərarlarının düzgünlüyünə (ilk növbədə əsas

sürücünün parametrləri baxımından) nəzarət etməyə və texniki xidmətin səmərəli təşkili ilə avadanlıqların nasazlıq ehtimalını azaltmağa imkan verəcəkdir.

Qeyd etmək lazımdır ki, istismarda olan lift qurğularının modelləşdirilməsi zamanı dispetçer xidmətlərinin müşahidələri nəticəsində alınan rejimin kinematik göstəricilərindən istifadə etmək mümkündür:

təmiz kompüter vaxtı və xüsusi başlanğıc sayı [11]. Bu liftlər üçün modelləşdirmə nəticəsində güc yükləri haqqında məlumatların əldə edilməsi aktualdır.

Layihələndirilən liftlərin iş rejimlərinin kompleks modelləşdirilməsi zamanı ilk növbədə onların əsas parametrlərinin seçilməsi məsələsini həll etmək lazımdır.

Bu problemlər ilə yanaşı bizim qarşımıza qayulan ən mühim məslələrdən biridə liftləri fasiləsiz enerji ilə təmin etməkdir.Elektrik və elektronika mühəndisi olaraq bu ciddi problemin həll etmək, hal-hazırdakı və gələcəkdəki ciddi bir problemin aradan qalxmağına kömək edəcək.Bu problem eyni zamanda sərnişin liftlərində və ya xüsusi təyinatlı liftlərin istifadəcilərin həyat təhlükəsizliyinidə təsir edir.Beləki liftlər 2-ci dərəcəli işlədicilər olduğu üçün onlar daimi fasiləsiz enerji mənbəyindən qidalanmalıdır.Əks təqdirdə lift istifadəciləri enerji olmadığı halda liftlərdə carəsiz qalaraq həyatlarını itirə bilər və ya qalıcı xəsarət və pisxaloji tranvma ala bilərlər.

Bu problemin həll olunması üçün UPS (Uninterruptible powersupply) sistemindən istifadəedirik.Beləki yükdən asılı olaraq secilmiş akumlatorlar ardıcıl birləşdirilərək bir vahid enerji qaynağı əmələ gətirir sonda isə bu enerji BPL(baş paylayıcı lövhə)-lərə ötürülür.BPL-lər isə enerjini obiyektdin kritik bölgələrinə ötürür.Bu kritik bölgələrdən biridə liftlərdirki UPS sistemləri enerji oladıqda liftləri enerji ilə təmin edərək istifadəcilərin həyat təhlükəsizliyin təmin edir.



**Materiallar və metodlar**. Problemlərin davamlı formalaşdırılması. Problemin həllinin ümumi konsepsiyasına uyğun olaraq və bu işin məqsədinə nail olmaq üçün hər bir istiqamət üzrə tapşırıqların strukturu və metodiki təminatı müəyyən edilmişdir. İlk növbədə, modelləşdirmə obyektini tsiklik rejimdə işləyən və təsadüfi xarici təsirlərə məruz qalan növbə sistemi kimi təsvir etmək planlaşdırılır. Əvvəlcə lift qurğusunun əsas hərəkətinə təsir edən təsadüfi amillərin məcmusunu öyrənmək lazımdır.

Simulyasiya modelləşdirməsi təsadüfi təsirlər şəraitində iş proseslərinin qanunauyğunluqlarını öyrənmək üçün effektiv metodoloji üsul kimi tanınır. Modelləşdirmə prosedurlarını həyata keçirmək üçün lift qurğusunun sürücüsündə qüvvə təsirlərinin formalaşmasının riyazi modellərini və təsadüfi təsirlərin paylanmasının formalaşmasının modellərini əsaslandırmaq lazımdır. Əsas təsir edən təsadüfi amillərə təsadüfi uçuşun salonundakı sərnişinlərin sayı, dayanma mərtəbələrinin sayı, zəng və təyinat, tsikl dövründə dayanacaqların sayı, xalis maşın vaxtının müddəti və uçuşun ümumi müddəti daxildir. dövrü.

Müasir proqramlaşdırma dillərindən biri əsasında lift quraşdırma aparatının iş rejiminin ekvivalent yüklərin miqyasına və kinematik xüsusiyyətlərinə ən mühüm amillərin təsiri üçün alqoritmlərin və simulyasiya proqramlarının işlənib hazırlanması nəzərdə tutulur.

Əsas amillərin lift qurğularının iş göstəricilərinə təsirinin ümumiləşdirilmiş asılılıqlarını qurmaq üçün simulyasiya və güc modelləşdirmənin adekvatlığını qiymətləndirmək və nəticələrini təhlil etmək lazımdır.

İlk dəfə olaraq, lift avadanlığı üçün texniki xidmət proqramlarının işlənib hazırlanmasına konseptual yanaşmaların onun yüklənməsinin real rejimləri ilə birlikdə formalaşdırılması və sonradan

lift qurğularına texniki xidmət qaydalarının formalaşdırılması üçün mühəndislik metodologiyasının hazırlanması planlaşdırılır.

Məqalədə liftin növbə sistemi kimi təqdim edilməsinin nəticələri, ekvivalent yük göstəricisinin seçilməsi və əsas sürücü şaftında qüvvə təsirinin formalaşması modeli verilmişdir. Kinematik parametrlərin və güc rejimlərinin modelləşdirilməsinin digər mərhələləri və nəticələri jurnalın növbəti nömrələrində təqdim olunacaq.

## NƏTİCƏLƏR

Tədqiqatlar nəticəsində sərnişin liftlərinin istismar müddəti, tarazlaşdırıcı yükün miqdarı, işə salınmala qurğularının xüsusi sayı və istismar müddətinin dərəcəsi nəzərə alınmaqla liftin yüklənməsinin kompleks şəkildə aşağıdakı göstəricisi təklif edilmişdir:

1.Göstəricinin qiymətinə uyğun olaraq tədqiqat sahəsinin strukturu müəyyən edilmişdir.

2.Təsir göstərəcək amillərin təsadüfi xarakteri nəzərə alınmaqla liftin iş rejimlərinin simulyasiya modelləşdirilməsinə imkan verən təsadüfi təsirlərin paylanma funksiyaları daxil olmaqla iş proseslərinin riyazi modelləri hazırlanmışdır.

3. Lift idarəedicisinin statik və dinamik qüvvələrinin hesablanması üçün əlaqələr ətraflı təsvir edilmişdir. Lift sürücüsünün statik və dinamik qüvvələrinin hesablanması üçün əlaqələr ətraflı təsvir edilmişdir.

4.Lifti daimi olaraq kəsintisiz və fasiləsiz enerji ilə təmin ederək lift istifadəcilərinin həyat təhlükəsizliyini təmin edilmişdir.

Liftin parametrlərinin və iş şəraitinin lift qurğusunun güc və kinematik parametrlərinə təsirinin əsas göstəriciləri öz təsdiqini tapmışdır.

## ƏDƏBİYYAT

1.Testing of transport system management strategy / Sergey Lupin, Than Shein, Kyaw Kyaw Lin, Anastasia Davydova // In: Proc. IEEE East-West Design & Test Symposium (EWDTS 2014). 10.1109/EWDTS.2014.7027050

2.Hongjiu Liu. Researchon Preventive Maintenance Strategyof Elevator Equipment/Hongjiu Liu, JiaxuanWu // Open Journal of Social Sciences. — 2018. — Vol. 6 (1). — P.165–174.

3.Torgny Almgren. Optimization Models for Improving Periodic Maintenance Schedules by Utilizing Opportunities/TorgnyAlmgren,Niclas Andréasson,Myrna Palmgren //In:Proc. WorldConferenceon Productionand Operation Management. Amsterdam, the Netherlands, July 1–5, 2012.

4. Li, Y.H. Maintenance Interval Optimization Method Based on Improvement Factor for System Components / Y.H. Li, Z. Liu // Mechanical Engineering & Automation. — 2016. — No. 4. — P. 6−8.

**Əlavə**





Yuxarıda göstərilən şəkillərdə hazırladığımız lift modelinin karkası və ümumi xarici görünüşü göstərilir

Tətqiqat və araşdırma ərəfəsində çəkilmiş şəkillər.







# MƏRKƏZLƏŞDIRILMIŞ ISTILIK TƏCHIZATI SISTEMLƏRINDƏ QIDALANDIRICI SUYUN DUZSUZLAŞDIRILMASI

**Əliyeva Gülsu Mahir qızı, qr.M342a**
**Rəhbər t.ü.f.d., dos. A.K. Kərimov**
gulsu432@gmail.com

## DESALINATION OF WATER IN CENTRALIZED HEAT SUPPLY SYSTEMS

**Abstract:** Types, advantages and disadvantages of water desalination in heat supply systems.
**Açar sözlər:** duzsuzlaşdırma, əks-osmos, elektrodializ.
**Keywords:** desalination, reverse osmosis, electrodialysis.

**Giriş**

Mərkəzləşdirilmiş istilik təchizatı sistemlərinin istilik mənbələrində, magistral boru kəmərləri şəbəkəsində və istehlakçılarda itirilən istilik daşıyıcılarının yerini doldurmaq üçün sistemə əlavə su verilir və bu su qidalandırıcı su adlanır. Qidalandırıcı su kimi istilik təchizatı sistemlərində qismən və ya tamamilə yumşaldılmış, qismən, tam və ya dərin duzsuzlaşdırılmış sulardan istifadə edilir.

İstilik təchizatı sistemlərinə verilən qidalandırıcı suların hazırlanması, ilkin su kimi istifadə edilən təbii səth sularının tərkibindəki asılı və kalloid maddələrin xaric edilməsi məqsədi ilə koaqulyant adlanan aliminium və dəmir duzlarının ( $Al_2(SO_4)_3$, $FeSO_4$, $FeCl_3$ və s) köməyi ilə şəffaflaşdırıcı qurğuda koaqulyasiya prosesinə uğradılması ilə başlayır.

İlkin su yalnız koaquliyasiya prosesinə uğradılarsa və emal zamanı suyun pH göstəricisi 5,5-8,0 intervalında dəyişərsə, koaqulyant kimi adətən $Al_2(SO_4)_3$ – dən istifadə edilir.

İstilik təchizatı sistemlərində istifadə edilən duzsuzlaşdırılmış suyun hazırlanması müxtəlif üsullarla həyata keçirilsə də, kimyəvi üsulla duzsuzlaşdırma ayrıca və digər üsulların tamamlayıcısı kimi əksər hallarda istifadə edilir və daha geniş yayılmışdır.

Bu üsulla duzsuzlaşdırmada ilkin su əvvəlcə şəffaflaşdırıcı qurğuda reagentlərlə (koaqulyant, əhəng, soda maqnezit və ya onların müxtəlif birgə kombinasiyaları) emal edilir. Asılı və kolloid maddələrdən tamamilə azad edilmiş şəffaflamış suyun emalda istifadə edilən reagentlərdən asılı olaraq codluğu, qələviliyi və duzluluğu qismən azaldılmış olur və bu ionit süzgəclərinə düşən yükü azaldır. Şəffaflaşmış su ardıcıl olaraq mexaniki, kationit və anionit süzgəclərindən keçirilir və duzsuzlaşdırılır.

Duzsuzlaşdırılmış suyun keyfiyyətinə verilən tələbatdan asılı olaraq ilkin su qismən, tamamilə və ya dərin duzsuzlaşdırıla bilər. Adətən qismən duzsuzlaşdırma bir pilləli süzgəclərdə, tamamilə yumşaltma iki pilləli süzgəclərdə və dərin yumşaltma isə üç pilləli ardıcıl qoşulmuş süzgəclərdə həyata keçirdilir. Bəzən dərin duzsuzlaşdırmada üçüncü pillə kationit və anionit süzgəcləri bir süzgəcdə kationit və anionitin birlikdə doldurulduğu qarışıq süzgəcdə aparılır.

Kationit süzgəclərindən keçərkən şəffaflaşmış suyun bütün kationları – $H^+$ – ionuna, anionları isə – $OH^-$ – ionuna dəyişdirildiyindən nəticədə duzsuzlaşdırılmış su alınır.

Termiki üsulla suyun duzsuzlaşdırılması üsulu buxarlandırıcı adlanan qurğularda suyun qızdırılması və buxarlandırılması nəticəsində su buxarlarının duzlardan ayrılmasına əsaslanır və ayrılmış buxar kondensasiya edilərək istifadə edilir. Lakin buxarlandırıcılara verilən suyun özünün də kimyəvi üsulla dərin yumşaldılması tələb edildiyindən bu üsulda da ətraf mühitə yüksək duzluluğa malik axıntı suları atılır.

İlkin suyun elektrodializ adlanan üsulla duzsuzlaşdırılması kationit və anionit membranların yalnız bir işarəli ionları buraxması hadisəsinə əsaslanır və əsasən duzlu suların duzluluğunun azaldılması məqsədi ilə istifadə edilir. Suyun tam duzsuzlaşdırılması məqsədi ilə elektrodializ adətən kimyəvi duzsuzlaşdırma ilə tamamlanır ki, tələb olunan keyfiyyətdə duzsuzlaşmış su alınsın.

Əks – osmos üsulu ilə suyun duzsuzlaşdırılması üsulunun əsasını osmos prosesi, yəni osmotik təzyiqlərdən yüksək təzyiqlərdə su malekullarının membranlarından keçməsinə əsaslanır. Bir qurğuda bir neçə pillə əks – osmos təşkil etməklə elektrodializə nisbətən yüksək keyfiyyətli duzsuzlaşmış su almaq mümkün olsa da, adətən bu qurğulardan sonra da kimyəvi duzsuzlaşdırma geniş üsul kimi

tətbiq edilir. Həm buna görə, həm də əks – osmos qurğusuna veriləcək suyun keyfiyyətinə qoyulan tələblərin əksər hallarda ilkin suyun əvvəlcədən kimyəvi üsulla emalını nəzərdə tutduğundan və yüksək keyfiyyətli membranların olmaması kimyəvi üsulla suyun yumşaldılması və duzsuzlaşdırılması üsulunun bu gün də öz aktuallığını saxlamasına səbəb olmuşdur.

**Nəticə.**

Beləliklə, elektrodializ və əks – osmos üsulları reagentsiz üsullar adlandırılsa da və ətraf mühitə atılan tullantı sularının miqdarını və duzluluğunu xeyli azaltmağa imkan versə də tam axıntısız texnologiyalar yaratmağa imkan vermir və bu üsullar kimyəvi duzsuzlaşdırma və yumşaltma ilə birgə tətbiq edilirlər.

**Ədəbiyyat**

1. Фейзиев Г.К. Высоко-эффективные методы умягчения, опреснения и обессоливания воды. Баку: «Техсил -НМП », 2009, 441 с.
2. Фейзиев Г.К., Гусейнова Г.Г., Исмайылов Р. Т. Бессточные методы частичного умягчения воды катионированием с безреагентной утилизацией стоков // Энергетика (Изв. ВУЗ-ов и энергетических объединений СНГ), Минск, 2010, № 2, с. 52-56.
3. İsmayılov R.T. İstilik şəbəkələri üçün səmərəli əlavə su hazırlığı texnologiyası // AzTU- nun Elmi əsərləri, Bakı, 2006, №4, s. 48-52.

# ПЕРСПЕКТИВНЫЕ ТЕХНОЛОГИИ В СФЕРЕ НЕФТЕПЕРЕРАБОТКИ И НЕФТЕХИМИИ

**АЛИЕВ БАЛАХАН ГАДЖИ**
Бакинский Инженерный Университет
Инженерное дело/Инженерные науки
*baeliyev@beu.edu.az*

**АЛИЕВА СЕВДА ЯКУБ**
Азербайджанский Государственный Университет
Нефти и Промышленности
Кафедра механики
sevda.aliyeva66@bk.ru

**BAKALAVR АЛИЕВ САДИГ БАЛАХАН**
Азербайджанский Государственный Университет
Нефти и Промышленности
aliyevsadiq1616@gmail.com

**Разюме:**Как известно, во всем мире промышленность является важнейшей составляющей единого комплекса и ведущей отраслью современной экономики. От успехов развития любого вида промышленности напрямую зависит уровень удовлетворения потребностей общества в продукции [5]. Переход на использование новых технологий в промышленности всегда проявляется в виде финансового и структурного кризиса экономики многих ведущих стран мира и сопровождается взлетом и падением цен. Для преодоления таких кризисов необходимо

не только поддерживать финансовую систему, но и грамотно и своевременно развивать новые технологии [1, С. 131.].

**Ключевые слова**: нефтеперерабатывающей и нефтехимической промышленности является удовлетворение потребностей народного хозяйства и смежных производств в высококачественных нефтепродуктах.

**Summary:** As you know, all over the world industry is the most important component of a single complex and the leading sector of the modern economy. The level of satisfaction of society's needs for products directly depends on the success of the development of any type of industry [5]. The transition to the use of new technologies in industry always manifests itself in the form of a financial and structural crisis in the economies of many leading countries of the world and is accompanied by a rise and fall in prices. To overcome such crises, it is necessary not only to support the financial system, but also to competently and timely develop new technologies [1, p. 131.].

**Key words: the oil refining and petrochemical industry is to meet the needs of the national economy and related industries for high-quality petroleum products.**

Топливно-энергетическая отрасль развивается уже достаточно долгое время: в начале ее развития в структуре потребления преобладал уголь, а в 30-е годы прошлого столетия стала активно расти доля нефти на мировом рынке, которая вышла на первое место топливноэнергетическом списке после окончания Второй мировой войны.

В наши дни нефтяная промышленность оказывает серьезное влияние на размещение и развитие всего производства, потому как на развивающиеся страны приходится около 60% топливно-энергетических ресурсов мирового хозяйства. Однако доля их потребления не превышает 30% - остальные 70% потребления приходятся на развитые страны.

Ключевой задачей нефтеперерабатывающей и нефтехимической промышленности является удовлетворение потребностей народного хозяйства и смежных производств в высококачественных нефтепродуктах [5].

В общем виде переработка нефти на нефтепродукты включает ее подготовку и процессы первичной и вторичной переработки [2, С. 11.]. Обычно выделяется две ключевые функции нефти:

- нефть – это энергоноситель;
- нефть – это химическое сырье.

Крайне важна в современном мире именно энергетическая функция нефти, потому как топливо, полученное из нефти, применяется в дорожном, морском, авиационном транспорте. Не стоит забывать и о важности нефти как химического сырья, потому как из нее производится столько разного рода продуктов, сколько не производится ни из одного другого полезного ископаемого. При этом, ни на миг не прекращаются разработки новых отраслей применения продуктов нефтепереработки, так же, как и не прекращаются поиски новых технологий нефтепереработки [4].

На развитие нефтепереработки и нефтехимии оказывают существенное влияние разного рода отрицательные факторы, среди которых: утяжеление сырья, ухудшение его качества, необходимость переработки высоковязких битуминозных и матричных нефтей, и так далее. Все это вызывает необходимость разработки новых инновационных и перспективных в будущем технологий в сфере нефтепереработки и нефтехимии.

Одновременно с этим отмечается переход по использованию углеводородных ресурсов в сторону газа: на мировом энергетическом рынке все чаще проявляется сланцевый газ, нефти из низкопроницаемых пород, биомассы и иное альтернативное сырье, что, в свою очередь, оказывает существенное влияние не только на всю нефтяную и газовую отрасли, но и на нефтехимию [7]. Важнейшим направлением по внедрению новых технологий в данную сферу является оснащение производства технологиями и оборудованием, которые ориентированы, прежде всего, на переработку более дешевого сырья [3].

К основным и наиболее перспективным технологиям в данной сфере относятся:

1. Температурные процессы переработки тяжелого нефтяного сырья: технологии по производству коксов, пеков и битумов, которые основываются на создании битумных эмульсий и композиционных компаундированных битумных материалов, модифицированных полимерами, серой и какими-либо иными компонентами.

2. Производство высокооктановых автомобильных бензинов с улучшенными экологическими свойствами [7].

3. Технология переработки отходов, которые образуются на нефтеперерабатывающих предприятиях в ходе получения высокооктанового компонента бензина. Данная технология позволяет получать из таких отходов фторид кальция, который используется в металлургической промышленности в качестве полноценной замены импорту востребованного на рынке плавикового шпата [3].

4. Переработка сжиженных углеводородных газов.

5. Технология получения ароматических углеводородов из попутных газов.

6. Процесс окисления природных, попутных и нефтезаводских газов в метанол, формальдегид и другие оксигенаты, переработка природного газа в этилен и пропилен с получением олефинов из природного газа.

7. Процессы (2) по переработке попутного газа в жидкие продукты. Первый - предполагает применение наноразмерных железосодержащих или кобальтовых катализаторов. При этом, с помощью наноразмерного эффекта появляется возможность в значительной степени увеличить производительность катализатора и самого слурри-реактора. Второй - включает в себя не только получение синтез-газа, но и еще две стадии:

- превращение синтез-газ в диметиловый эфир с примесью метанола;
- получение бензиновой фракции из оксигенатов.

8. Процесс постоянной интеграции нефтепереработки и нефтехимии [7].

9. Переработка синтетической нафты и освоение выпуска новых видов полиэтилена и полипропилена.

10. Переработка нефтяного сырья на основе оксида алюминия, что обеспечивает нефтеперерабатывающую промышленность современными катализаторами, которые, в свою очередь, ведут к повышению качества моторных топлив и увеличению глубины переработки нефтяного сырья.

11. Каталитический крекинг и каталитический риформинг – инновации, значительно повысившие экологичность и безопасность производства высокооктанового бензина.

12. Переработка нефти с помощью сорбентов и катализаторов [3].

13. Современные технологии, которые позволяют получать топливо для холодного климата: технологии и катализаторы процесса производства низкозастывающего дизельного топлива [7].

Подводя итоги, можно сказать, что спрос на нефтяную продукцию в наши дни огромный, и он продолжает расти. Однако, в настоящее время, из-за большого числа экономических кризисов, касающихся всех государств мира, а, также, из-за снижения цен на нефтепродукты и уменьшения объемов добычи нефти, возросла необходимость в разработке новейших технологий нефтепереработки и нефтехимии. По сути, разработка и применение новых, экологически безопасных и энергоресурсосберегающих технологий переработки нефти – это важнейших шаг к предотвращению глобального экологического кризиса. Переход к наиболее перспективным технологиям комплексной переработки нефти должен способствовать расширению сырьевой базы перерабатывающих предприятий, снижению себестоимости и затрат, а, также, получению высококачественной продукции по более выгодным ценам для потребителя [6, С. 91]. Во всем мире, в том числе и в России, активно разрабатываются и внедряются новейшие технологии, которые направлены на переработку тяжелого нефтяного сырья и получение продукции более высокого качества. При этом, реальные перспективы внедрения всех рассмотренных технологий в российскую промышленность можно будет увидеть только при активном развитии инжиниринга и объединении усилий исследовательских организаций, компаний и проектных институтов, занимающихся вопросами нефти [7].

**Список литературы**

1. Вдовина А. А. Перспективные технологии нефтегазовой отрасли в рамках формирования новых технологических укладов общественного развития // Вопросы инновационной экономики. – 2018. – Т. 8, № 1. – С. 126-140.

2. Ильин А. В., Давлетшин Р. Р., Курамшин А. И. Химическая технология нефть и ее переработка: учебное пособие. – Казань: Казанский университет, 2018. – 80 с.

3. Новейшие достижения в технологии для нефтегазовой отрасли были представлены на неделе нефтепереработки, газа и нефтехимии в Москве, 2018. [Электронный ресурс]. URL: https://neftrossii.ru/content/noveyshie-dostizheniya-v-tehnologii-dlya-neftegazovoy-otrasli-bylipredstavleny-na-nedele-neftepererabotki-gaza-i-neftehimii-v-moskve/ (дата обращения: 03.04.2021) 193 4. Справочник. Проблемы нефтяной промышленности. [Электронный ресурс]. URL: https://spravochnick.ru/mirovaya_ekonomika/mirovoe_hozyaystvo/razvitie_toplivnoenergeticheskoy_bazy_mirovogo_hozyaystva/ (дата обращения: 03.04.2021) 5. Справочник. Развитие топливно-энергетической базы мирового хозяйства. [Электронный ресурс]. URL: https://spravochnick.ru/mirovaya_ekonomika/mirovoe_hozyaystvo/razvitie_toplivnoenergeticheskoy_bazy_mirovogo_hozyaystva/ (дата обращения: 03.04.2021) 6. Филенко Д. Г., Дадашев М. Н., Винокуров В. А., Григорьев Е. Б. Сверхкритическая флюидная технология в нефтепереработке и нефтехимии // Вести газовой науки. – 2011. - № 2 (7). – С. 82-92.

7. Хаджиев С. Н., Капустин В. М., Максимов А. Л. Перспективные технологии для нефтепереработки и нефтехимии // Нефтепереработка и нефтехимия. – 2014. – № 9. – С. 3-10.

8. Хаткова Л.В., Гучетль И.Н., Манченко Ю.В. Здоровьесберегающие технологии в начальной школе // Учебно-методическое пособие. – Майкоп: ИП. Кучеренко В. О., 2017. - 115 сф

# QEYR – METAL BORULARDA HİDRAVLİKİ MÜQAVİMƏTİN TƏDQİQİ

**[1]Asif Quliyev , [1]İsmi Şahbalayev, [2]Akif Baxşıyev**
[1]asquliyev@beu.edu.az , [1]ishahbaliyev@std.beu.edu.az ,[2] akif_bax@yahoo.com
[1]BAKI MÜHƏNDİSLİK UNİVERSİTETİ , MÜHƏNDİSLİK / MÜHƏNDİSLİK ELMLƏRİ
[2]AZƏRBAYCAN TEXNİKİ UNİVERSİTETİ , ENETGETİKA VƏ AVTOMATİKA

**XÜLASƏ**

Maye, qaz və onların qarışıqlarından ibarət konsentrasiyaları bir məntəqədən digər məntəqəyə nəql etmək üçün əsasən boru və armatur birləşmələrindən ibarət sisitemlərdən istifadə olunması təcrübəsi bu gün də öz aktuallığını qorumaqdadır. Yəni, axınların optimal nəql olunmasını təmin etmək üçün boru nəqliyyatı sistemlərindən istifadə edirlər. Nəql olunma zamanı əsas prioritet məsələ məhsuldarlığın artırılması, minimum təzyiq itkisinin təmin olunması və az enerji sərfiyyatının əldə olunmasına nail olmaqdır. Qarşıya qoyulan məsələnin həlli istiqamətində araşdırmalar onu göstərir ki, nəql olunan mühitin fiziki xassələri ilə yanaşı digər faktorlar əsas parametrlərin dəyişməsinə təsir göstərir. Nəql olunma zamanı işçi mühitin əsas parametrlərinin dəyişməsinə səbəb olan faktorlardan biri də boru materialıdır. Belə ki, axınla əlaqədar boru materialları hidravlik müqavimət yaranamasına təsir göstərən əsas faktorlardan biridir. Ona görə də hidravlik müqavimətlərin tədiqinə həsr olunmuş mövzu aktualdır.

**AÇAR SÖZLƏR.** maye, axın, hidravlik müqavimətlər, boru, hidravlik armatur.

**SUMMARY**

The practice of using systems consisting mainly of pipe and fittings to transport concentrations of liquid, gas and their mixtures from one point to another is still relevant today. That is, they use pipe transport systems to ensure optimal transportation of flows. During transportation, the main priority is to increase productivity, ensure minimum pressure loss and achieve low energy consumption. In order to solve the problem, the researches show that other factors, along with the physical properties of the transported medium, affect the change of the main parameters. One of the factors that cause changes in

the main parameters of the working environment during transportation is the pipe material. Thus, pipe materials related to the flow are one of the main factors affecting the formation of hydraulic resistance. Therefore, the subject dedicated to the verification of hydraulic resistances is relevant.

**KEY WORDS** fluid, flow, hydraulic resistances, pipe, hydraulic fitting.

## GİRİŞ

Boru və armatur materialları hazırlanma texnologiyasına və materialın növünə görə fərqlənirlər. Metal və qeyri-metal olmaqla iki qrupa bölünürlər.

Qeyri-metal boru və armaturlardan keçən əsrin 50-ci illərindən başlayaraq Avropa, Amerika, Yaponiya və digər inkişaf etmiş ölkələrdə istifadə etməyə başlamışdılar.Qeyri-metal qrupuna daxil olan plastik kütlədən hazırlanmış boru və armaturlardan sənayenin müxtəlif sahələrində, xüsusilə mayelərin və qazların nəql olunmasında geniş istifadə edirlər. Buna səbəb plastik kütlədən hazırlanmış boru və armaturlarda hidravliki müqavimətin metal borularla müqayisədə 3-7 dəfə az, istismar müddətinin 80 ilə yaxın, ekoloji cəhətdən təmiz, montajının asan olması, yüksək korroziya dayanıqlığı, boru kəməri sistemlərinin uzunömürlülüyü, səthin və hidravlik müqavimətin aşağı nahamarlığı, mayenin nəql olunmasında enerji xərclərinin az olması, aşağı istilikkeçirmə xassəsi və azalan ehtimallı kondensatın formalaşması, aşağı səs keçiriciliyi, akustik sanitar normaların pozmadan basqı borusunda suyun hərəkət sürətinin 6–9 m/s (polad borular üçün 3 m/s) kimi artması, xüsusilə qəzalı və fövqəladə vəziyyətlərdə kommunal sistemlərin etibarlılığının yüksək olması borunun divarını zədələməmədən qoruyur, borular-da suyu donmasına və borunun elastikliyi supaylaşdıran armaturanın bağlanması zamanı yaranan hidravlik zərbələri yumşaltmağa imkan verir, aşınma dayanıqlı mexaniki qarışığı daşıyan boruların xidmət müddətini artırır, uzun boruları (100 m-dən çox) rulon və barabanlarda təchiz etməyə imkan verir ki, bu da qovşaq birləşmələrinin sayını azaldır və quraşdırma məhsuldarlığını, həmçinin sistemlərin etibarlılığını (80% plastik boru kəmərlərində baş verən qəzalar uc-uca birləşmələrində baş verir) artırır; kiçik çəki (metaldan 3-8 dəfə yüngül), bu da daşıma və saxlama xərclərini azaldır; satınalma işləri üçün aşağı əmək xərcləri; quraşdırma zamanı enerji təchizatı tələb etməyən (elektrik, sıxılmış hava və s.) əsasən sadə əl alətlərinin istifadəsi; quraşdırma zamanı yanğın təhlükəsizliyi (qaynaq proseslərinin temperaturu 200–240 °C) istehsal proseslərini dayandırmadan və yanan konstruksiyalardan tikilmiş binalarda işləri yerinə yetirməyə imkan verir, həmçinin quraşdırma işlərinin aşağı qiyməti olması ilə xarakterizə olunur.

Layihələndirmə və hesablama zamanı plastik kütlədən hazırlanmış boru və armaturların üstün cəhətlərini qeyd etməklə yanaşı metal borularla müqayisədə plastik boru kəmərlərinin digər mühüm xüsusiyyətləri nəzərə alınmalıdır. Bunlara aşağıdakıları aid etmək olar:

aşağı möhkəmlik, boruları mexaniki və istilik təsirlərindən qorumaq zərurəti, boruların yükdaşıyıcı konstruksiyalar kimi istifadə edilə bilməməsi, armatur və avadanlıqların qüvvələr boru kəmərlərinə ötürülməməsi üçün tikinti konstruksiyalarına möhkəm bərkidilməsi ; aşağı səth möhkəmliyi; aşağı sərtlik və daşıma qabiliyyəti; istilik xətti genişlənmənin yüksək əmsalı; aşağı istilik müqaviməti, qızdırıldığı zaman dayanıqlığın və uzunömürlülüyün azalması; diffuziya keçiriciliyi; aşağı temperaturda kövrəklik; yanma qabiliyyəti; xüsusilə mexaniki stress, temperatur və ultrabənövşəyi radiasiyaya məruz qaldıqda materialın qocalması; fərqli materialların birləşməsinin mürəkkəbliyi; tempera-turun artması ilə boruların sərtliyinin azalması və sallanması və s. olması il əlaqədardır.

Elm və texnologiyanın inkişafı ilə əlaqədar olaraq istehsal olunan yeni nəsil qeyri-metal boru və armaturlarda hidravlik müqavimələrin eksperimental tədqiqnə ehtiyac vardır. Belə ki, hidravliki müqavimət əmsallarını qiymətlərini bilmədən hidravlik sistemlərdə, magistral boru kəmərlərində və s. birləşmələrdə təzyiq itkilərinin hesablanması mümkün deyildir. Hidravlik müqavimət əmsallarının qiymətləri yalnız təcrübi nəticələr əsasında alınmış qiymətlər əsasında formalaşdırır.

Qeyd etmək lazımdır ki, ilk dəfə XVIII əsrdə təcrübə yolu ilə turbulent axın rejimində basqı itkisi və orta sürət (və yaxud sərf) arsındakı asılılığın tapılmasına cəhd olunmuşdur. O, zaman müəyyən olunmuşdur ki, hidravliki maillik təqribi olaraq axının orta sürətinin kvadratı ilə mütənasibdir, yəni (Darsi - Veysbax) :

$$h = \lambda \frac{l}{d} \cdot \frac{\vartheta^2}{2g} \quad (1)$$

və yaxud

$i = \lambda \frac{\vartheta^2}{2gd}$ (2) burada, $\vartheta$ – axının orta sürəti; $i$ – hidravliki maillik; $h$ – sürtünmədəki basqı itkisi; $l$ və $d$ – uyğun olaraq borunun uzunluğu və diametri; $\lambda$ – hidravliki sürtünmə əmsalı.

İlk tədqiaqatçılar $\lambda$ əmsalını sabit qəbul edirdilər. XIX əsrin ortalarında Darsi və Bazen müxtəlif materiallı təcrübi boru və kanalllarda sistematik təcrübələr aparmış və bu qənaətə gəlmişlər ki, hidravliki sürtünmə əmsalı $\lambda$ divarın kələ-kötürlüyündən, borunun diametrin-dən və axının sürərindən asıdır.Bu asılılığı nəzərə alan ilk düsturlar ( Darsi düsturu, Veysbax düsturu və ) təklif olunmuşdur.

Axının hərəkət rejimindən asılı olaraq müxtəlif rejimlər üzrə müəyyən zonalar və hesablama düsturları müəyyən edilmişdir:

***Laminar axın üçün:*** $Re < 2320$ olduqda $\lambda = \frac{64}{Re}$ və yaxud $\lambda = \frac{75}{Re}$

***Keçid zonası üçün:*** $2320 < Re < 4000$ olduqda boru kəmərinin layihələndirilməsi tövsiyə olunmur.

***Turbulent axın üçün:***

1-ci sahədə (zonada) $4000 < Re < 10\ \frac{d}{\Delta_e}$ olduqda

$\lambda_t = \frac{0,3164}{Re^{0,25}}$ Blazius və

$\lambda_t = \frac{1}{(1,8lgRe-1,52)^2}$ P.K.Konakov düsturları

2-ci sahədə (zonada) $10\ \frac{d}{\Delta_e} < Re < 560\ \frac{d}{\Delta_e}$ olduqda

$\lambda_t = 0,11\left(\frac{\Delta_e}{d} + \frac{68}{Re}\right)^{0,25}$ A.D,Altşul düsturu

3-cü sahədə (zonada) $Re > 560\ \frac{d}{\Delta_e}$ olduqda

$\lambda_t = 0,11\left(\frac{\Delta_e}{d}\right)^{0,25}$ A.D,Altşul düsturu

$\frac{1}{\sqrt{\lambda_t}} = -2\lg\left(\frac{\Delta_e}{3,71d}\right)$ Nikuradze düsturu

Təcrübələr nəticəsində müəyyən olunmuşdur ki, axının canlı kəsiyi boyunca sürətin paylanması üzrə boru kəmərində sürət profili üçün empirik düsturlar təklif olunmuşdur. Bazen müəyyən etmişdir ki, sürət borunun mərkəzindən onun divarına doğru müəyyən qanun üzrə azalır, bu azalmanı aşağıdakı kimi yazmaq ( müasir işarələmələrdə) olar

$\frac{u_{max}-u}{u_*} = f\left(\frac{y}{r}\right)$ (3)

burada, $u_{max}$ – maksimal sürət ( borunun oxunda ) ; $u$ - divardan $y$ məsafədəki sürət ; $u_*$ – dinamiki sürət olub $\sqrt{\frac{\tau_0}{\rho}}$. Burada $\tau_0$ – borunun divarında toxunan gərginlik; $\rho$ – mayenin sıxlığı.

(3) düsturuna əsasən qeyd etmək olar ki, sürətin paylanması toxunan gərginlik səbəbin- dən asılı deyildir.

Qeyri-metal boru və armaturlarda hidravlik müqavimət əmsllarının eksperimental tədqiqi ilə əlaqədar tərəfimizdən yığılmış təcrübə qurğusunun sxemi (Şəkil 1) verilmişdir.




***Şəkil 1. Hidravlik müqavimət əmsallarının eksperimental tədqiqat qurğusu***

Təcrübə qurğusu əsasən qəbul və ölçü çənlərindən, müxtəlif en kəsikli boru və hidravlik armaturlarda basqı düşküsünü təyin etmək üçün pyezometrlərdən, tənzimləyici kranlar-dan və qəbul çənində işçi mayenin temperaturunu ölçmək üçün termometrdən ibarətdir.

Təcrübənin aparılması üçün qəbul çənində suyun səviyyəsinin daimi sabit saxlanması üçün *H=const* şərti axıtma xəttinin hesabına yaradılır.

Eksperimental təcrübəyə başlamazdan öncə $K_2$ kranı açılır, $K_1$ kranının köməyi ilə suyun verimi $P$ çənində elə tənzimlənir ki, pyezometrin göstərişlərini $H_1^{/}$, $H_1^{//}$, $H_2^{/}$ və s., (Baxılan tədqiqat obyektinin başlanğıcında və sonunda quraşdırılmış pyezometrlərdə ölçmələr eyni zamanda götürülür) suyun sərfini və temperaturu qeyd etdikdə *H=const* aşağı enməsin. Bütün parametrlər üzrə təcrübələr iki dəfə təkrarlanır. Əgər təcrübi nəticələr üzrə uyğunsuzluq olarsa, o zaman təcrübələr üç dəfə aparılır.

Aparılmış ölçmələr əsasında hesablanır:

a) Boru kəmərlərində suyun orta sürəti aşağıdakı kimi təyin edilir

$d$ diametrli boru üçün $\vartheta_d = \frac{4Q}{\pi d^2}$ (4)

$D$ diametrli boru üçün $\vartheta_D = \frac{4Q}{\pi D^2}$ (5)

b) Darsi əmsalı

$\lambda_d = \frac{2gdH_{uz_1}}{l_1\vartheta_d^2}$ və $\lambda_D = \frac{2gdH_{uz_4}}{l_4\vartheta_D^2}$ (6) burada, $H_{uz_1} = H_{itk_1} = H_1^{/} - H_1^{//}$ və $H_{uz_4} = H_{itk_4} = H_4^{/} - H_4^{//}$ ( $H_{uz} = H_{itk}$, burada baxılan düz sahə üzrə $H_y = 0$) ;

c) Kranın müqavimət əmsalı

$\xi_{kr} = \frac{2gH_{y_2}}{\vartheta_d^2}$ (7) burada

$H_{y_2} = H_{itk_2} - H_{uz_2} = \left(H_2^{/} - H_2^{//}\right) - \lambda_d \frac{l_2^{/}+l_2^{//}}{d} \cdot \frac{\vartheta_d^2}{2g}$

d) Qəflətən genişlənmədə müqavimət əmsalı

$\xi_{q.g} = \frac{2gH_{y_3}}{\vartheta_d^2}$ (8) burada

$H_{y_3} = H_{itk_3} - H_{uz_3} = \left[\left(H_3^{/} - H_3^{//}\right) + \frac{\vartheta_d^2-\vartheta_D^2}{2g}\right] - \left[\lambda_d \frac{l_3^{/}}{d} \cdot \frac{\vartheta_d^2}{2g} + \lambda_D \frac{l_3^{//}}{d} \cdot \frac{\vartheta_D^2}{2g}\right]$ (9)

Digər yerli müqavimətlər üçün $\xi$ əmsalı analoji olaraq təyin edilir. Reynolds ədədindən asılı olaraq $\lambda$ və yaxud $\xi$ əmsallarının asılılığını təyin etmək üçün boru kəmərində quraşdırılmış $K_2$ kranının köməyi ilə suyun müxtəlif sürətli hərəkəti təmin edilir və müxtəlif Re-də hər bir Re üçün $\lambda$ və $\xi$ təyin edilir. Alınmış nəticələr əsasında $\lambda = f(Re)$ və yaxud $\xi = f(Re)$ aslılığı qurulur.

## ALINMIŞ NƏTİCƏLƏR

4. Məqalədə hidravlik müqavimətlirin tədqiqi ilə əlaqədar eksperimental qurğunun iş prinsipi ətraflı izah olunmuş və yeni tədqiqatlar üçün tövsiyə edilmişdir.

5. Eksperimental qurğuda əsas təcrübələrin aparılması üçün sınaq təcrübələr aparılmış və alınmış nəticələr ədəbiyyat göstəriciləri ilə müqayisə olunmuşdur.Növbəti mərhələ üçün əsas təcrübələrin aparılması zamanı yoxlama-sınaq təcrübələrindən alınmış nəticələrə istinad etmək tövsiyə olunmuşdur.

6. Alınmış təcrübi nəticələrdən istifadə edərək Reynolds ədədinin istənilən qiymətlərində hərəkət rejiminin müxtəlif qiymətlərində müxtəlif zonalar üzrə hidravlik müqavimət əmsallarının göstəricilərinə görə istənilən materialdan olan boru və armaturlarda hidravlik müqavimətləri tədqiq etmək üçün $\lambda = f(Re)$ və yaxud $\xi = f(Re)$ aslılıqlarını qurmaqla uzunluq və yerli təzyiq itkilərinin veriliş intervallarda təyin etmək olar.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

1. Y.İ.Məmmədzadə Hidravlika və hidravlik maşınlar, Bakı, 1975.,
2. Идельчик И Е. Справочник по гидравлическим сопротивлениям. М., Машиностро-ение, 1975
3. T.M.Məmmədova Hidravlik, Maarif Nəşriyyatı, Bakı, 1982, 253 səh.
4. Альтшуль А.Д. Гидравлические сопротивление. М., Недра, 1972
5. A.X.Mirzəcanzadə, R.S.Qurbanov,Z.M.Əhmədov, Hidravlika, Maarif Nəşriyyatı, Bakı, 1990, 280 səh.
6. Hüseynov S.O.,Qulitev A.H. Hidravlik müqavimətlr. Dərs vəsaiti, Bakı, 2012, 128 səh.

# FIRLANAN QRUP MAŞINLARIN MİL BÖLGƏSİNİN TƏBİİ VİBRASİYALARININ MÜƏYYƏN EDİLMƏSİ ÜSULU.

**KƏRİMBƏYLİ MÜZƏFFƏR**
Bakı Mühəndislik Universiteti
Mühəndislik/Mühəndislik elmləri
mkarimbayli@.beu.edu.az
XIRDALAN, AZƏRBAYCAN

**GÜNAY ZƏRBALIYEVA CABIR**
Bakı Mühəndislik Universiteti
Mühəndislik/Mühəndislik elmləri
gzarbaliyeva@beu.edu.az
XIRDALAN, AZƏRBAYCAN

**XÜLASƏ**

Müasir dəzgah sənayesində dəzgahların məhsuldarlığını artırmaq, eyni zamanda onların dəqiqliyini artırmaq və maya dəyərini azaltmaq tələbləri artır. Metalkəsici dəzgahlarda emalın düzgünlüyü bir çox amillərin təsiri ilə müəyyən edilir: dəzgahın və onun ayrı-ayrı komponentlərinin (məsələn, mil qurğusunun, uzununa və eninə ötürücülərinin) həndəsi dəqiqliyi; kəsici alətin tənzimlənməsinin dəqiqliyi; kəsici alətin aşınması; texnoloji sistemin dəzgah-qurğu-alət-hissəsinin elastik deformasiyaları; vibrasiya; maşın komponentlərinin, iş parçalarının və kəsici alətlərin temperatur deformasiyaları. Bu amillərin kompleks təsiri alətin və iş parçasının nisbi mövqeyinə və emal dəqiqliyinə əhəmiyyətli dərəcədə təsir göstərir. İş mili qurğusunun statik və dinamik xüsusiyyətləri emal dəqiqliyinin artırılmasında ən böyük əhəmiyyət kəsb edir. Buna görə də, mil aqreqatlarının layihələndirilməsi zamanı onların təbii salınım tezliklərini hesablamaq və rezonans rejimlərini proqnozlaşdırmaq lazımdır.

**AÇAR SÖZLƏR:**mil qurğusunun, uzununa və eninə ötürücülərinin həndəsi dəqiqliyi, kəsici alətin tənzimlənməsinin dəqiqliyi;

**SUMMARY**

In the modern machine tool industry, there are increasing demands to increase the productivity of machine tools, at the same time to increase their accuracy and reduce the cost. The accuracy of processing in metal-cutting machines is determined by the influence of many factors: the geometric accuracy of the machine and its individual components (for example, the spindle assembly, longitudinal and transverse drives); accuracy of cutting tool adjustment; cutting tool wear; elastic deformations of the machine-equipment-tool-part of the technological system; vibration; temperature deformations of machine components, workpieces and cutting tools. The complex effect of these factors significantly affects the relative position of the tool and the workpiece and the machining accuracy. The static and dynamic characteristics of the spindle device are of the greatest importance in increasing the machining accuracy. Therefore, when designing shaft units, it is necessary to calculate their natural oscillation frequencies and predict their resonance modes.

**KEY WORDS:** geometric accuracy of the spindle device, longitudinal and transverse gears, accuracy of cutting tool adjustment;

## GİRİŞ

Bir çox elm adamı mil birləşmələrinin təbii tezliklərini öyrənmişdir. Müxtəlif tədqiqat üsullarından istifadə edilmişdir. Məsələn, [1-3] işlərində, mürəkkəb sistemlərin dinamikasında keçid matrislərindən istifadə etməklə ilkin parametrlər metodundan istifadə etməklə onun modelləşdirilməsini təsdiq edən milli birləşmənin təbii tezliklərinin müəyyən edilməsi üçün eksperimental tədqiqatlar təqdim olunur [4].

Bu tədqiqatın məqsədi mil qurğusunun vibrasiyasının təbii tezliklərini müəyyən etmək və torna dəzgahlarında iş parçalarının emalının rezonans rejimlərini proqnozlaşdırmaqdan ibarət idi.

Yüksək dəqiqlikli vint kəsən torna 1I611P-nin çertyojlarından və pasport məlumatlarından istifadə edərək mil qurğusunun əsas ölçüləri müəyyən edilmiş və onun konstruksiya diaqramı qurulmuşdur (Şəkil 1). Rulman qurğuları C1, C2, C3 sərtliyi olan elastik dayaqlarla təmsil olunur. İş parçası mildə konsolda yerləşdirilir və kəsici qüvvə Fy ilə hərəkət edir. İş parçasının, milin ölçüləri, emal zamanı kəsicinin yeri və elastik dayaqların yerləşdiyi yer nəzərə alınmaqla, mil qurğusunun dizayn diaqramı 17 hissəyə bölünür.

**TƏDQIQAT METODU**

İş parçasının quraşdırıldığı mil qurğusunun eninə vibrasiyalarını nəzərdən keçirək. İş parçası aşağıdakı parametrlərə malikdir: uzunluq L, vahid uzunluğa düşən kütlə m, əyilmə sərtliyi EJ, sönüm əmsalı μ . Mil qurğusunun eninə vibrasiyaları üçün diferensial tənlik aşağıdakı formaya malikdir:

$$\frac{\partial^4 y}{\partial x^4} + \frac{m}{EJ} \cdot \frac{\partial^2 y}{\partial t^2} + \mu \cdot \frac{\partial y}{\partial t} = 0$$

burada: y - hissənin yanal hərəkəti, x - nisbi koordinat, t - vaxt.

Laplas-Karson çevrilməsindən, Krılov funksiyalarından istifadə edərək, əyilmə momentinin və kəsmə qüvvəsinin təsvirləri üçün müvafiq olaraq M( x, p ) və Q( x, p ) qeydlərini götürərək, texnoloji funksiyanın ötürmə funksiyasının tənliyini alırıq. x = l1-də sistem matris şəklində:

$$\begin{bmatrix} \tilde{y}(l_1, p) \\ \tilde{y}'(l_1, p) \cdot L \end{bmatrix} = [\mathbf{H_{11}}] \cdot [\tilde{\mathbf{y}}_{\mathbf{34}}]$$

Harada $[\mathbf{H_{11}}], [\tilde{\mathbf{y}}_{\mathbf{34}}]$ - keçid matrisləri.




Şəkil. 1.1И611П dəzgahının mil yığımının dinamik sisteminin diaqramı.

**NƏTİCƏ**

26 mm diametrli poladdan hazırlanmış iş parçasının emal edilməsi üçün mil qurğusunun təbii tezliklərinin modelləşdirilməsinin nəticələri 0,21 mm/dövr, kəsmə dərinliyi olan T15K6 sərt ərintidən hazırlanmış əlavə ilə kəsici ilə 1 mm və sürəti 60 m/dəq Şəkil 2-də təqdim olunur.




Şəkil 2. Mil qurğusunun təbii vibrasiya tezlikləri

Beləliklə, 1000 Hz-ə qədər olan vibrasiya tezlikləri mil qurğusunun və iş parçasının vibrasiyalarına, 1000 Hz-dən yuxarı vibrasiya tezlikləri çip əmələ gəlməsi tezliyinə və onun harmoniklərinə uyğun gəlir.

**ƏDƏBIYYAT SIYAHISI**

1. Авилов А.В. Влияние частотных характеристик технологической системы и износа режущего инструмента на точность токарной обработки: автореф. дис…канд.техн. наук: 05.03.01/Авилов А.В.; ДГТУ.- Ростов н/Д, 2008.-18 с.

2. Авилов А.В., Мирошниченко В.Г. Математическая модель колебаний шпинделя токарного станка с консольным закреплением заготовки// СТИН.-2008.-№9.- с. 2-5.

3. Авилов А.В., Мирошниченко В.Г. Моделирование динамических характеристик технологического оборудования с применением метода начальных параметров/ А.В. Авилов, В.Г. Мирошниченко//Фундаментальные и прикладные проблемы приборостроения и информатики: сб. научных трудов по материалам Международ.научно-практической конференции.-М:МГУПИ, 2011 г.-С.9-12.

4. Ивович В.А. Переходные матрицы в динамике упругих систем. М.: «Машиностроение», 1969. - 200 с.

# KÜRƏVI KRANLARDA KIPLƏŞDIRICI DÜYÜNÜN EFFEKTIVLIYININ ARTIRILMASI

**BAYRAMLI ELCAN**
*SOCAR SƏNAYE TƏHLÜKƏSIZLIK IDARƏSI*
elcan.bayramli.1999@mail.ru
BAKI, AZƏRBAYCAN

**XÜLASƏ**

Kürəvi krandakı sistemin elementlərinin və konfiqurasiyasının düzgün seçilməsi və qurulmuş sistemin müsbət və mənfi cəhətlərinin araşdırılmasına həsr edilmişdir. Bu zaman aparılan tədqiqatların nəticələrinə xüsusi diqqət yetirmək lazımdır. Kranın kipliyinin təmin edilməsi zamanı yarana biləcək çətinliklərin aradan qaldırılması üçün qaqablayıcı tədbirlərin analiz edilməsi vacibdir. API standartlarına uyğun olaraq dizayn edilmiş və maqnit cihazı tətbiq edilmiş kürəvi kranın sızdırmağa yoxlanılması əsas məqsədlərdəndir, maqnit cihazı və yeni növ metal kipləşdiricidən istifadə etməklə kürəvi kranın kipliyinin artırılması əsas məqsədlərdəndir. Kürəvi kranlarda maqnit cihazılı metal kipgəclərin istifadəsilə onlarda yaranan kipləşdirmə problemlərinin həllinə yönəlmişdir. Müəyyən edilmişdir ki, kürəvi kranların konstruktiv quruluşunun müasir səviyyəsi özünün mükəmməl səviyyəsinə çatmaqdadır. Buna baxmayaraq kranların müsir səviyyəsinin yüksəldilməsi üçün onlarda aşağı və ya yüksək temperturlarda yeyilməyə davamlı, yüngül çəkiyə malik materiallardan düzəldilmiş metal kipləşdiricilərin hazırlanmasına böyük ehtiyac vardır.Yeni maqnit cihazlı kürəvi karanların işlənməsinin elmi yanaşması verilmişdir. Məlum olmuşdur təqdim olunmuş kürəvi kranlarda maqnit cihazlı metal kipgəclərin istifadəsi kürəvi kranların yüksək temperatur və təzyiq şəraitində işləməsinə şərait yaradır və metal kipləşdiricilərin kipləşdirmə qabiliyyəti artır. Kürəvi kranların konfiqurasiyasının, dizaynının və istismarının optimallaşdırılması sistemləri real şəkildə təsvir olunan inkişaf etmiş modellər tərəfindən dəstəklənir. Ümumi riyazi modellərin inkişafına dair əlavə araşdırmalar proqram kimi etibarlı və asanlıqla əldə edilə bilən çox məqsədli optimallaşdırma vasitələrinin inkişafını və tətbiqini asanlaşdıracaqdır. Kürəvi kranların sisteminin performans potensialını nəzərə almaq üçün planlaşdırma və standartlaşdırılmış modellər bu texnologiyaların tətbiqini əhəmiyyətli dərəcədə yaxşılaşdıracaqdır. Təsdiqlənmiş və sistemə uyğun metodologiyanın hazırlanması bu sahənin inkişafına öz müsbət təsirini göstərməkdədir.

**AÇAR SÖZLƏR: kürəvi kran ,kipləşdirici , maqnit cihazı, kiplik, metal kipləşdirici**

**ABSTRACT**

It is dedicated to the proper selection of the elements and configuration of the system in the ball valve and to the examination of the pros and cons of the constructed system. It is necessary to pay special attention to the results of the research conducted at this time. It is important to analyze the preventive measures in order to eliminate the difficulties that may arise when ensuring the condition of the crane. One of the main objectives is to check the leakage of the ball valve, which is designed according to API standards and applied the magnetic device, and to increase the tightness of the ball valve by using the magnetic device and a new type of metal sealer. It is aimed at solving the problems of shaping caused by the use of magnetic devices in ball valves. It was determined that the modern level of the constructive structure of spherical cranes is reaching its perfect level. Nevertheless, in order to increase the level of efficiency of faucets, there is a great need to prepare metal fasteners made of lightweight materials that are resistant to corrosion at low or high temperatures. A scientific approach to the development of spherical coils with a new magnetic device is given. It has been known that the use of metal caps with magnetic devices in the presented ball valves allows the ball valves to work under conditions of high temperature and pressure, and the capping capacity of metal caps increases. Optimization of ball valve configuration, design and operation systems is supported by advanced models that are realistically depicted. Further research into the development of general mathematical models will facilitate the development and implementation of reliable and readily available multi-objective optimization tools such as software. Planning and standardized models to take into account the performance potential of the ball valve system will significantly improve the application of these technologies. Development of a proven and systematic methodology has a positive effect on the development of this field.

**KEYWORD: ball valve, sealer, magnetic device, sealing, metal sealing**

## GİRİŞ

Kürəvi kranlarda kipliyin təmin edilməsi hələ də yeni bir texnologiyadır. Texnologiyanın gələcəkdə daha da inkişafına davam etməsi gözlənilir ki, daha geniş tətbiq oluna bilsin və bu sistem daha aşağı xərclərə sahib olsun. Gələcəkdə daha standart dizaynlar olacaq və xüsusi tətbiqetmələrə uyğun bir sistem seçmək daha asan olacaq. Komponentlər arasında daha güclü əlaqə qurulacaqdır. Bu nəzarət, izləmə və diaqnozu asanlaşdıracaqdır. Nəhayət, alternativ cihazların istifadəsi artacaq. Müxtəlif növ kipləşdirici elementlər və kranlar daha yaxşı nəticələr əldə etmək üçün istifadə olunur. Xərclərin aşağı düşməsi və etibarlılığın artması səbəbindən daha çox istifadə ediləcəyi gözlənilir.Yüksək keyfiyyətli sızdırmazlıq təklif edən kürəvi kranlar korroziv və təcavüzkar mühitlərdə etibarlılığı təmin edir. Yeni növ materiallardan hazırlanmış kran elementləri mənbələrin mövcudluğundan, texniki və iqtisadi məhdudiyyətlərdən və etibarlılıq tələblərindən asılı olaraq seçilə bilən bir neçə variant mövcuddur. Kranların dizaynı zamanı ümumi konfiqurasiyaları təqdim edilməlidir. Müvafiq sızdırmazlıq və temperatur vahidi dərəcələrinin təyin edilməsi kran sistemlərinin dizaynında vacib bir addımdır. Dizayn sahəsi, müəyyən bir etibarlılıq səviyyəsini təmin edən və müəyyən bir tələbi ödəməyə qadir olan bütün mümkün sistem konfiqurasiyalarının məcmusudur. Kranlar təzyiq altında işləyən və axını kəsmək, keçişinə icazə vermək həmçinin axının istiqamətini dəyişən qurğulardır. Bütün bunlar axının bağlayıcı elementi (kürə, sipər və s.) vasitəsilə həyata keçirilir. Kranların iki əsas növü var: xətti hərəkət növlü və fırlanan hərəkət növlü. Kürəvi kranlar fırlanan hərəkət tipli kranlardan biridir. Bu sistemlərə enerji saxlama texnologiyaları daxil ola bilər. Bu birləşmə etibarlı, ekoloji cəhətdən təmiz və iqtisadi güc təmin edəcəkdir. Kranlar sənayenin istənilən sahəsində istifadə olunur. Onlar istifadə olunduğu sahələrin tələblərinə uyğun olaraq hazırlanır. Kranlar tez-tez yüksək temperatur, təzyiq və aşındırıcı maddələrə məruz qalır. Nəticədə bəzən günlərlə, hətta saatlarla işləyə bilmirlər. Ona görə də bu strukturların təkmilləşdirilməsi istiqamətində daim araşdırmalar aparılır, yeniliklər axtarılır. Bu məqalənin əsas məqsədi top klapanının sızdırmazlıq qabiliyyətini artırmaqdır. Bunun üçün xüsusi bir maqnit cihazı istifadə edilmişdir. [1,2] Sızdırmazlıq elementi kranda quraşdırılmış bir hissədir. Kran bağlandıqda, sıxac kranı möhürləyir. Mastiklər adətən plastik və ya rezindən hazırlanır və yüksək təzyiq və temperatura məruz qaldıqda tez parçalanır. Bunun məqsədi top kranları üçün yeni metal qapaqların dizaynıdır. [3,4] Kranlar maye axınına nəzarət edən qurğulardır. Yeni texnologiyaların köməyi ilə hazırlanmış klapanlar təkcə axını deyil, həm də təzyiqi, sürəti və axının istiqamətini idarə edə bilir. Kranı

bağlandıqda, axını kəsir, əks halda axının keçməsinə imkan verir. Kranlarda sıxlıq yaradan element klapanlardır. Etibarlı sızdırmazlığı təmin etmək üçün rezin, plastik, teflon və neylon materiallardan istifadə edilə bilər. Bu materialların üstünlüyü onların yüksək elastikliyidir. Bununla belə, bu materiallar yüksək təzyiq, temperatur və ya yüksək korroziyalı mühitlərdə deformasiya edilə bilər. Bu, effektiv şəkildə möhürlənməyi çətinləşdirir. Bu problemin aradan qaldırılmasında metal qapaqlardan istifadənin xüsusi yeri var. Əsas fundamental tələblər yüksək temperatur, təzyiq və korroziyalı mühitlərdə kranın düzgün işləməsidir.

Kranı dizayn edərkən nəzərə alınmalı olan əsas məsələlər:

1) Keyfiyyət
2) İstehsal edilə bilər
3) İqtisadi cəhətdən sərfəli olmalıdır
4) Quraşdırmaq və təmir etmək asan olmalıdır.

Sızdırmazlıq üçün metaldan istifadə yuxarıda sadalanan əşyaları əldə etməyin ən yaxşı yollarından biridir. Mexanik dizayn texnologiyasına aiddir:

1) Yeniliklərin tətbiqi
2) Planlaşdırma
3) İstehsal
4) Test prosesi

**TƏDQİQAT METODU**

Kranlar təzyiq altında işləyən və axını kəsən, keçidə icazə verən, həmçinin axının istiqamətini dəyişən cihazlardır. Bütün bunlar axının birləşdirici elementi (kürə, pazvarı və s.) Kranların iki əsas növü var: xətti və fırlanan. Sferik kranlar fırlanan hərəkətli kranlardan biridir. Sferik klapan Şəkil 1-də göstərilmişdir. Kürə qapaqlar arasında fırlanır. Bilyalı klapanların əsas üstünlükləri yağlama tələb etməməsi və işləmək üçün yüksək tork tələb etməməsidir. Möhürləyici kranın gövdəsinin bir hissəsidir və axını idarə edən ağızın sıxlığını təmin edir. Sızdırmazlıq halqası xüsusi material xüsusiyyətlərinə malikdir və bərkidici element üçün təmas səthini təmin edir. Elastikliyinə görə sızdırmazlıq materialı kimi plastik, teflon və neylon kimi yumşaq materiallardan istifadə edilir. Mastiklərin ən vacib texniki göstəricilərindən biri onların xidmət müddətidir. Bununla belə, bu materiallar yüksək təzyiq, temperatur və ya yüksək aşındırıcı mühit altında deformasiya edilə bilər. Bu, effektiv şəkildə möhürlənməyi çətinləşdirir. Bu problemin aradan qaldırılmasında metal sızdırmazlıq elementlərinin istifadəsi xüsusi yer tutur. Yaxşı etibarlılığa nail olmaq üçün metal qapaqların istehsalı və quraşdırılması dəqiq şəkildə aparılmalıdır. Bununla belə, metal mastiklərin tətbiqi yüksək maliyyə tələb edir. Həmçinin, yüksək korroziyalı mühitlərdə metal mastiklər tez sıradan çıxa bilər. Bu problemlə yanaşı, metal mastiklərin ümumi kütləni artırması da diqqətdən kənarda qalmamalıdır. [5,6,7]



**Şəkil 1.** Kürəvi kranın şəkili

Metal mastiklərdən istifadə edərkən, metaldan metal səthlər arasında yüksək sızdırmazlıq meydana gəlir. Bu halda kürənin fırlanması üçün tələb olunan fırlanma momenti daha yüksək olur. Bu problemi aradan qaldırmaq üçün üç aktivatorda istifadə olunur. Bağlayıcı ilə sıx əlaqə yaratmaq üçün metal möhürlərin dizaynı asan proses deyil. Ona görə də bu elmi işin əsas məqsədi yüksək

temperaturda və korroziyalı mühitlərdə işləyən, həmçinin asanlıqla quraşdırılıb təmir oluna bilən yüksək qiymətli metal mastiklərin hazırlanmasıdır. Vana da aşağı fırlanma momentində işlədilməlidir və axını dərhal açıb dayandıra bilməlidir. Dizaynerlərin konsepsiyası olduqda, məqsəd texniki və iqtisadi meyarlara uyğun olaraq son dizayn strukturunu qurmaqdır. İlkin dizayn planın dəqiqləşdirilməsinə gətirib çıxarır. Bütün fərdi hissələrin təşkili, növləri, ölçüləri və materialları son dizayn mərhələsində qeyd olunur. Top klapanlarındakı möhürlər həmişə topla təmasdadır.

Möhürləmək üçün maqnit hissələri istifadə edərkən, maqnit hissəcik kran bağlandıqda möhürlənmə üçün maqnit qüvvəsindən istifadə edir. Vana qapalı olduqda maqnit qüvvələrindən təsirlənmir. Əgər klapan açıq olduqda ona təsir edən maqnit sahəsi klapan bağlı olduqda ona təsir etmirsə, onda klapan üzərində təsir edən sürtünmə qüvvəsi kiçikdir. Şəkil 2 və 3 bir maqnit cihazı göstərir.




**Şəkil 2.** Kürəvi kranın açıq vəziyyəti



**Şəkil 3.** Kürəvi kranın qapalı vəziyyəti

Maqnit qurğunun mərkəzi hissəsi maqnitdən, digər xarici hissəsi isə polad və misdən hazırlanır. Polad təmiz maqnit keçirici materiallardan biridir. Misin maqnit keçiriciliyi yoxdur. Maqnit dalğaları poladdan misdən daha asan keçir. [8,9,10]

Maqnit cihazının dizaynı tamamlandıqdan sonra növbəti vəzifə cihazı oturacaqla birləşdirməkdir. Oturacaq dairəvi halqadır və arxaya uyğun olmalıdır. Maqnit qüvvəsini udmaq üçün oturacağın kənarından uzanan dil formalı hissə əlavə edilir. Oturacaq indi qapalı vəziyyətdə maqnit qüvvəsini qəbul edə bilər, lakin açıq vəziyyətdə deyil. Sızdırmazlığı təmin etmək üçün oturacaq qapalı vəziyyətdə top və qapaq gövdəsi ilə sıx təmasda olmalıdır. Buna görə də, bədənin oturacaqları tutan hissəsi və kürə keçidi V şəklindədir. Buna görə də, maqnit cihazının tətbiq etdiyi üfüqi maqnit qüvvəsi, bu meylə görə oturacaqları aşağı itələyir, möhürlənməni təmin etmək üçün topu və oturacaqları bir-birinə sıxır. [11,12]




**Şəkil 4.** Yüksək təzyiq nəticəsində materialın formasının dəyişməsi




**Şəkil 5.** Kipləşdirici materiala magnetik təsiri

Şəkil 5-dən görə bilərik ki, kontakt elementləri hələ də bir-biri ilə güclü təmasdadır və kontakt elementləri arasındakı boşluqlar sıfırdır. Bu o deməkdir ki, top klapan hələ də təzyiq altında möhürlənmişdir. Maqnit quraşdırıldıqdan sonra oturacaqlara tətbiq olunan maqnit qüvvəsi maqnit cihazının formasından asılıdır. Buna görə də burada optimallaşdırmanın məqsədi maqnit cihazının vəziyyətini və ölçüsünü tənzimləməklə maqnit qüvvəsini artırmaqdır. Qapağın sahəsi məhdud olduğundan və maqnit cihazının hündürlüyünü dəyişdirmək mümkün olmadığından ağız boşluğu maqnit xətlərinə təsir göstərmir. Şəkil 6 maqnit avadanlığın ölçüləri göstərilmişdir. Dizaynı optimallaşdırmaq üçün model iki ölçüdə dəyişdirilə bilər. Dizayndakı məhdudiyyət qapaq sahəsidir, maqnit cihazı örtük sahəsindən daha kiçik olmalıdır. Burada optimallaşdırmanın məqsədi ən yüksək maqnit intensivliyi-H əldə etməkdir, çünki bu, maqnit qüvvəsini maksimum dərəcədə artırır. [13,14,15,16]




**Şəkil 6.** Maqnit avadanlığın forması

Optimallaşdırma üçün ANSYS optimallaşdırma alətindən istifadə edilmişdir.Şəkil 7 və 8 göstərilmişdir. Bu alət dizayn üçün ən yaxşı parametrləri seçməyə imkan verir.




**Şəkil 7.** Optimallaşdırmadan əvvəl




**Şəkil 8.** Optimallaşdırmadan sonra

| | J | K | G | H |
|---|---|---|---|---|
| İlk model | 1.5 | 20 | 22 | $0.43886 \times 10^{7}$ |
| Optimal versiya | 2.102 | 21.5 | 22.476 | $0.62325 \times 10^{7}$ |

***Cədvəl 1.*** *Maqnetik avadanlığın ölçüləri*

**NƏTİCƏ**

Növbəti addımda isə yaratdığımız "Car" adlı agent əsasında agent kütləsi (population of agents) yaradırıq. Sonra isə modeldəki CarSource bloklarının "Cars population" bölməsində yaradılmış agent kütləsini seçirik. Növbəti addımda Analysis palitrasından Histogram Data elementini əlavə edirik və "timeInModel" olaraq adlandırırıq. Analiz üçün hər bir avtomobilin modeldə sərf etdiyi vaxtı hesablamaq lazımdır. Car agentinin OnDestroy event-də hazırkı vaxtla agentin, yəni avtomobilin modelə daxil olma vaxtının fərqini taparaq histoqrama əlavə etmək lazımdır. Bu məqsədlə aşağıdakı java kodunu əlavə edirik:




**Şəkil 7.** Car agentinin On Destroy event-i

Model üzərində eksperiment aparmaq üçün əvvəlcə modelin işləməsinin başlama və dayanma vaxtını təyin edilməlidir. Beləliklə, modelin işləmə müddəti 10 dəqiqə olaraq təyin edilir. Modeli yenidən işə salıb Histogram data-nın parametrlərinə baxdıqda "Mean" adlı parametri görürük. Bu, avtomobillərin modeldə keçirdiyi ortalama müddəti saniyələrlə göstərir və işıqforların işi üçün yaxşı bir performans ölçü dəyəridir. Müşahidəyə əsasən işıqforların giriş parametrləri üçün cari modeldəki "Mean" dəyəri təxminən 30 saniyə (29.957) təşkil edir.




**Şəkil 8.** Histoqram dəyərləri

"Mean" dəyərinin azaldıması üçün əvvəlcə işıqfor fazalarını parametrləşdirilməlidir. Modelə "p1" və "p2" adında 30 və 20 saniyə ilkin dəyərləri ilə iki parametr əlavə edirik və işıqfor fazalarında həmin parametrlərdən istifadə edirik.




**Şəkil 9.** Modifikasiya edilmiş işıqfor fazaları

Növbəti addımda model kontekst menyusundan "Experiments" bölməsindən yeni optimizasiya eksperimenti yaradırıq. Açılmış parametrlər pəncərəsindən məqsədi, minimum "Mean" dəyərinin əldə edilməsi üçün Objective bölməsinə uyğn Java kodunu əlavə edirik. "p1" və "p2" parametrlərinin tipini diskretə dəyişərək optimizasiya eksperimentini işə salırıq.




**Şəkil 10.** Eksperiment parametrlər pəncərəsi

Optimizasiya eksperimentinin nəticəsi "Mean" dəyərinin minimum olması üçün "p1" və "p2" parametrlərinin uyğun olmaqla 10 və 40 saniyə olmasını deməyə əsas verir.




**Şəkil 11.** Eksperiment nəticəsi

Parametrlərin, yəni işıqfor fazalarının müddətini 10 və 40 saniyə olaraq təyin etdikdən sonra modeli işə saldıqda avtomobillərin modeldə sərf etdiyi müddətin azaldığını görürük (24.853 san).




**Şəkil 12.** Modifikasiya edilmiş parametrlərlə modelin cari çıxış qiymətləri

Nəzərdə tutulmuş modelin qurulması ilə işıqforun müxtəlif faza vaxtlarına görə nəqliyyat axınlarının analiz nəticələri aşağıdakı cədvəldə göstərilmişdir:

| Parametrlər (işıqfor fazaları) | Müddət (saniyə ilə) | Avtomobillərin ortalama modeldə sərf etdiyi müddət (saniyə ilə) |
|---|---|---|
| p1 | 30 | 29.957 |
| p2 | 20 | |
| p1 | 20 | 30.991 |
| p2 | 25 | |
| p1 | 20 | 28.286 |
| p2 | 20 | |
| p1 | 10 | 28.332 |
| p2 | 30 | |
| p1 | 10 | 24.853 |
| p2 | 40 | |

**Cədvəl 1.** Nəqliyyat axınlarının analiz nəticələri

## NƏTİCƏ

İşıqforların faza müddətlərinin təyini nəqliyyat vasitələrinin hərəkətinə, ümumi yol şəbəkəsində nəqliyyat sıxlığına ciddi təsir edir. Qurulmuş modeldə yol kəsişməsində işıqforların faza müddətləri nəqliyyat vasitələrinin modeldə sərf etdiyi ortalama vaxtdan asılı olaraq təyin edilmişdir. Bu tədqiqat işində AnyLogic proqram paketi vasitəsilə yol kəsişməsindəki nəqliyyat vasitələrinin modeldə sərf etdiyi ortalama vaxt analiz edilmiş və simulyasiya nəticələri alınmışdır. Eksperiment vasitəsilə nəqliyyat vasitələrinin modeldə sərf etdiyi ortalama vaxtı minimuma endirmək istiqamətində iş aparılmışdır.

Beləliklə, AnyLogic proqram paketindən istifadə edərək nəqliyyat axınlarının modelləşdirilməsi və analiz edilməsinin mümkünlüyünü görmüş olduq. Bu baxımdan AnyLogic güclü bir modelləşdirmə vasitəsi olaraq geniş istifadə olunur. AnyLogic vasitəsilə giriş parametrlərini daxil edərək modelin simulasiya edilməsi və çıxış parametrlərinin qiymətlərinin yaxşılaşdırılması mümkündür.

**ƏDƏBİYYAT SİYAHISI**

1. Borshchev, A. (2014). Multi-method modelling: AnyLogic. Discrete-Event Simulation and System Dynamics for Management Decision Making (248-279).
2. Kong, J. & Yu, H. & Chenkun Y. (2020). On the Urban Link Fundamental Diagram Based on Velocity-Weighted Flow and Queue Length. Symmetry, 12(11), 1852.
3. Yang, J. & Kang, Y. & Yu, L. (2017). Simulation on road traffic congestion based on Anylogic. Computer applications and software, 34 (12), 111-115.
4. Anylogic rəsmi web saytı. Road Traffic Library (25-02-2024). https://www.anylogic.com/features/libraries/road-traffic-library/
5. Anylogic rəsmi web saytı. Road Traffic Library blocks (04-03-2024). https://anylogic.help/library-reference-guides/road-traffic-library/blocks.html

# TURIZM NƏQLIYYATININ IQTISADI SISTEMININ IDARƏ OLUNMASINA LOGISTIK YANAŞMANIN TƏTBIQ EDILMƏSININ MƏQSƏDƏUYĞUNLUĞU

**Heybətulla Əhmədov**
texnika elmləri doktoru, professor

**Qəzənfər Axundov**
baş müəllim
Bakı, Azərbaycan Texniki Universiteti
heybetahmed@aztu.edu.az, qezenfer.axundov@aztu.edu.az

*Məqalədə turizm nəqliyyatının iqtisadi sisteminin idarə olunmasında meydana çıxan qanunauyğunluqlar təhlil olunmuş, bununla bağlı logistik yanaşmanın reallaşdırılmasının metodiki təminatı müəyyən edilmiş, həmçinin bu sistemin idarə edilməsində logistik yanaşmanın tətbiqi elmi cəhətdən əsaslandırılmış və beləliklə də bütün bunların həyata keçirilməsi, turizm və nəqliyyat sistemlərinin qarşılıqlı səmərəlili fəaliyyətinin yüksəldilməsinə və inkişafına səbəb olacaqdır.*

***Açar sözlər:*** *turizm, turizm nəqliyyatı, turizm nəqliyyatının iqtisadi sistemi, təsərrüfat subyektləri.*

**Logistics to the management of the economic system of tourism transport appropriateness of applying the approach**

**H.M. Ahmadov, Q.N. Akhundov**
Azerbaijan Technical University

Summary

The article analyzes the patterns that arise in the management of the economic system of tourist transport, defines the methodology for implementing a logistics approach to this issue, and also proposes the use of a logistics approach in managing this system. Thus, the implementation of all this will contribute to increasing the mutual efficiency of the tourism and transport systems and will lead to their development.

Key words: tourism, tourist transport, economic system of tourist transport, economic entities.

**Giriş.** Turizm nəqliyyatı turistlərin hərəkətdə olma ehtiyaclarına xidmət etməyə yönəlmiş bir texniki vasitə olmaqla, turizmin əhəmiyyətli tərkib hissəsini təşkil edir. Turizmin bütün paketlərində, ənənəvi olaraq nəqliyyat xərcləri qeyd edilir. Nəqliyyat, turistləri maraqlandıran məkanlara onların çatdırılmasını həyata keçirir və məqsədli turist xidmətlərinin istehlakı prosesində turistlərin hərəkətdə olmalarına xidmət edilirlər. Nəqliyyat, ekskursiya səyahətlərinin marşrutlarına da xidmət edir. Hazırda beynəlxalq aləmdə, həmçinin ölkəmizdə də nəqliyyat turizminin müxtəlif növləri geniş inkişaf etmişdir [1, s. 480].

Məlumdur ki, turizm elastik tələbata malik olan bir sahə olduğundan, səyahət prosesində daima dəyişiklyə məruz qalan iqtisadi şərtlər, turizmin nəqliyyat infrastrukturunun elementlərini belə dəyişikliklərə məharətlə reaksiya verməyə məcbur edir. O da məlumdur ki, turizm nəqliyyatının inkişafında çətinliklərin yaranmasına əsas səbəblərdən biri də, turizm nəqliyyatının idarəetmə sistemindəki iqtisadi fəaliyyətin regional sistemlərdə digər əlaqədar iştirakçılarla əlaqələnmə mexanizminin əhəmiyyətli dərəcədə inkişaf etməməsidir. Ona görə də turizm nəqliyyat sisteminin nəqliyyat, turist və regional sistemlərlə qarşılıqlı əlaqələrinin dərindən araşdırılması və bu sahədə yaranan çətinliklərin səbəblərini üzə çıxararaq, onların aradan qaldırılması üçün lazımi tədbirlər sisteminin işlənib hazırlanması vacibliyi ortaya çıxır [2, 3]. Bu məqsədlə ilk növbədə turizm nəqliyyat sisteminin nəqliyyat, turist və regional sistemlərin hər birinə uyğun gələn real vəziyyətlər əsasında onların qarşılıqlı əlaqələrinin yaxşılaşdırılması tələbi də yaranır.

Hazırda turist nəqliyyatının iqtisadi sisteminin idarə edilməsinin aləti kimi logistik yanaşma tədqiqat obyektindən istifadə etmək, zamanın aktual məsələlərindəndir. Bu məsələ ilə bağlı iqtisadi sistemlərin inkişafı üçün aparılan tədqiqatlar zamanı tələb edilən informasiya bazası qismində statistik materiallardan, qanunverici və normativ aktlardan, həmçinin turizm nəqliyyatının müəssisələrindən əldə edilmiş məlumatlardan istifadə etmək olar.

Turizmdə nəqliyyat təmsilçisindən yüksək səmərəliliklə istifadə olunması məqsədi ilə, turizm nəqliyyatının iqtisadi sisteminin idarə edilməsinə, aşağıda qeyd edilən səbəblərə görə logistik yanaşmanın tətbiq edilməsi daha məqsədəuyğun sayılır:

1. təsərrüfatlararası əlaqələrin çətinləşməsi səbəbindən onun sosial və iqtisadi inkişafının ilkin şərtlərinin dəyişikliyə uğraması ilə əlaqədar hazırda turizm nəqliyyatının iqtisadi sistemi haqqında elmi biliklərin yenilənməsinə ehtiyac duyulur;

2. bir sıra bölgələr üzrə təcrübədə turizm nəqliyyat infrastrukturunun qismən inkişafdan qalmasıyla bağlı, irrasional maliyyə axınları, nəqliyyat işinin həcmləriylə onların uyğunsuzluğu və s. kimi qoyulmuş bir çox problemlər hələ tam həllini tapmamışdır. Bütün bunlar hal-hazırda turizm nəqliyyatının rəqabətə davamlılığını nəzərə çarpacaq dərəcədə aşağı salır;

3. turizm nəqliyyatı sahəsində iqtisadi fəaliyyətin inkişafı, ümumilikdə həm turizmin və həm də nəqliyyatın inkişafı ilə qarşılıqlı şərtləşdirilmişdir və əlaqələndirilmişdir. İqtisadiyyatın nəqliyyat təmsiledicisinin müasirləşdirilməsinin və beynəlxalq turist cəlbedicisi kimi respublikamızın cazibədarlığının artırılma məsələlərinin həlli, turistlərin müxtəlif regionlar üzrə nəqliyyat axınlarının təkmilləşdirilməsini tələb edir;

4. bir sıra regional nəqliyyat sistemlərinin kifayət etməyən inkişaf səviyyəsi, respublikamızda daxili turizmin inkişafına maneəçilik törədir. Tükənməz turist resurslarına malik olan ölkəmizdə, bu resurslardan daha səmərəli istifadə etmək üçün turizm nəqliyyatında idarəetmənin təsirli və effektiv mexanizminin yaradılması barədə əlaqədar şəxslərə hazırda lazımi göstərişlərin verilməsi vacibliyi tələb olunur;

5. turistlərin nəqliyyat axınlarının idarə edilməsinin çətinliyi, təsərrüfat subyektlərinin hədəflərinin bu məsələ ilə bağlı inteqrasiyası proseslərinin xüsusi müzakirəsinə ehtiyacın olması şərtini tələb edir;

6. turizm nəqliyyatının inkişafında çətinliklərinin yaranmasına əsas səbəb, turizm nəqliyyatının idarəetmə mexanizmində iqtisadi fəaliyyətin başqa iştirakçılarıyla əlaqələnmə mexanizminin hazırda əhəmiyyətli dərəcədə inkişaf etməməsidir. Bu sahədə lazımi tədbirlər sistemi işləyib hazırlayaraq onları həyata keçirməklə, turizm logistikasında nəqliyyat sisteminin nəqliyyat, turist və regional sistemlərlə qarşılıqlı əlaqələrinin yaxşılaşdırılması sayəsində bu çətinliklərin aradan qaldırılması mümkün olardı [2, s. 122].

Turizm nəqliyyatının iqtisadi sisteminin idarə edilməsinə logistik yanaşmanın tətbiq edilmə vacibliyinin yuxarıda qeyd edilən səbəblərini nəzərə almaqla bu məsələnin həllinə nail olmaq üçün aşağıda göstərilən növbəti məsələlərin həll edilməsi vacibdir:

1. turizm nəqliyyatının iqtisadi sisteminin optimal xüsusiyyətlərinin məcmusuna əsaslanaraq, onun idarə sisteminə irəli sürülən müasir tələbləri müəyyən etmək;

2. turizm nəqliyyatının iqtisadi sistem tərəfindən effektiv idarə olunmasını təmin edən yanaşma sisteminə logistik yanaşmanın inteqrasiya etmə ehtiyacını və imkanını əsaslandırmaq;

3. logistik yanaşma əsasında sistemli şəkildə həl edilməsi tələb olunan turizm nəqliyyatının iqtisadi sisteminin idarə edilməsinin müasir vəziyyətini və problemlərini araşdırmaq;

4. logistik yanaşma əsasında turizm nəqliyyatının iqtisadi sisteminin idarə edilməsinin təkmilləşdirilməsinin əsas istiqamətlərini müəyyən etmək;

5. hər hansı bir region səviyyəsində turizm nəqliyyatının logistik inzibatçılıq formasının tətbiqinə dair metodiki və praktiki tövsiyələr hazırlamaq;

6. hər-hansı bir turizm nəqliyyatı müəssisəsinin logistik yanaşma əsasında idarə edilməyə hazırlığının qiymətləndirilməsinin metodikasını tərtib etmək.

Qeyd edilən bu məsələlərin dərindən araşdırılması və həll edilməsi nəticəsində turizm nəqliyyatının iqtisadi idarəetmə sisteminin problemlərinin logistik yanaşmanın tətbiqiylə sistemli həllinə nail olmaq və logistik yanaşma əsasında turizm nəqliyyatının iqtisadi sisteminin idarə edilməsinin təkmilləşdirilməsinin əsas istiqamətlərini müəyyən etmək mümkündür.

Turizm nəqliyyatının iqtisadi sisteminin inkişaf etdirilməsi zamanı təsərrüfatçılıq edən bir sıra subyektlərin öz iqtisadi fəaliyyətlərinin loqistləşdirilməsinə ehtiyacın yaranmasını, çoxlu sayda marağların uyğunlaşdırılmasına ehtiyacın meydana çıxmasını nəzərə alaraq, həmçinin problemin çətinliyinə və açıqlığına əsaslanaraq, onun idarə edilməsinə müasir tələblərin irəli sürülməsi vacibdir [4]. Bu məsələnin araşdırılmasının ümumi istiqaməti üzrə çıxış edən və xüsusi metodoloji yanaşmaların tətbiqinə istiqamət verən sistem yanaşmasının ardınca, turizm nəqliyyatının iqtisadi

sisteminin effektiv idarə edilməsini təmin edən yanaşmaların iyerarxiya sisteminə logistik yanaşmanın inteqrasiyasının ehtiyacı və imkanı da dərindən araşdırılmalıdır.

Aparılmış ilkin araşdırmalar nəticəsində turizm nəqliyyatının iqtisadi sisteminin fəaliyyətinin müasir vəziyyətindəki idarəetmə sistemində aşağıdakı çatışmazlıqlar müəyyən edilmişdir:

- keyfiyyətin artırılmasındakı və turist daşımalarının rəqabətə davamlılığındakı müəyyən yarıtmazlığlar;
- bir sıra bölgələr üzrə infrastrukturların müasir səviyyəyə uyğun yenilənməməsi;
- vahid informasiya məkanının yaradılmasındakı müəyyən qüsurların mövcudluğu;
- turizm nəqliyyat sisteminin regional inkişafındakı ləngimələrin olması;
- turist daşımaları bazarında beynəlxalq tələblərə cavab verən tarazlığının təmin edilməməsi;
- turizm nəqliyyat bazarına iştirakçıların inteqrasiyasının zəif davam etməsi.

Qeyd edilən çatışmazlıqları nəzərə alaraq, logistik yanaşma əsasında turizm nəqliyyatının iqtisadi sisteminin idarə edilməsinin təkmilləşdirilməsinin aşağıda qeyd olunan ilkin istiqamətləri də müəyyən edilmişdir:

- logistik yanaşmanın metodologiyasının tətbiqi;
- idarə etmə proseslərində məqsədi güman edilən məzmunun tamlığında artımın saxlanması;
- turizm nəqliyyatının inteqrasiya funksiyasının gücləndirilməsinə yönəldilmiş idarəetmə mexanizminə dəyişikliklərin edilməsi.
- logistik sistemin idarə olunmasının uyğun funksiyalarının icra edilməsi üçün lazım gələn təşkilati strukturun yaradılmasını özündə əks etdirən regionun turizm nəqliyyatının logistik inzibatçılıq etməsinin tətbiqi üzrə metodiki və praktiki tövsiyələrin hazırlanması;
- logistik yanaşma əsasında müəssisənin idarə edilməsinə hazırlığın və buna müvəffəqiyyətlə inteqrasiya etmə ehtimalının qiymətləndirilməsi;
- logistik yanaşmanın idarəetmə prosesinə cazibədarlığını əks etdirən amillərin müəyyən edilməsi;
- turizm nəqliyyatı müəssisəsinin idarəetmə prosesinə logistik yanaşmanın tətbiqini əks etdirən metodiki ardıcıllığın işlənməsi.

Göründüyü kimi, aparılan bu araşdırmalar həm praktik, həm də nəzəri mahiyyət kəsb edir. Araşdırmaların praktik əhəmiyyəti turizm nəqliyyatının iqtisadi sisteminin idarə edilməsinin təkmilləşdirilməsində lazımlı əsası kimi logistik yanaşmadan istifadə etmə fürsətindən yararlanmaqdan ibarətdir. Logistik yanaşma əsasında hazırlanmış idarə edilmənin təklif olunmuş mexanizminin tətbiqi, inteqrasiya və innovasiya proseslərinin gücləndirilməsinə və turizm nəqliyyatının iqtisadi sisteminin idarə edilmə təsirliliyinin artmasına doğru aparır. Həmçinin, logistik yanaşma idarəetmədə qərarlarının qəbul ediləsinin və reallaşdırılmasının sürətlənməsinə imkan yaradır və bununlada rəqabət aparma mübarizəsi zamanı qələbə çalma perspektivini təsərrüfat subyektinə həvalə edir [2, s. 124]. Araşdırmaların ayrı-ayrı nəticələri idarəetmə, turizm infrastrukturu və qonaqpərvərliyi üzrə tədris prosesi üçün proqramların və dərsliklərin hazırlaması zamanı da istifadə oluna bilərlər.

Araşdırmaların nəzəri mahiyyətini logistik yanaşmaya həm turizm nəqliyyatının iqtisadi sistemində, həm də ölkəmizin başqa iqtisadi sistemlərində marağın yaranması və inkişafıyla əsaslandırılaraq qiymətləndirmək mümkündür. Aparılan araşdırmaların nəticələri isə nəqliyyat bazarı iştirakçılarının məqsədlərində kritik uyğunsuzluqların müəyyən edilərək aradan qaldırmasına şərait yarada bilər.

**Nəticə.** Beləliklə də, turizm nəqliyyatının inkişafının idarə edilməsində meydana çıxan qanunauyğunluqların təhlili, həmçinin tədqiq edilən iqtisadi sistemin idarə edilməsində logistik yanaşmanın reallaşdırılmasının metodiki təminatının müəyyən edilməsi, bu problemlə bağlı nəzəri-metodoloji məsələlərin araşdırılmasının elmi və tətbiqi nöqteyi-nəzərdən vacibliyini sübuta yetirir. Bu sahədəki elmi biliyin metodologiyası araşdırmaların metodoloji əsasına xidmət edir və problemlə bağlı irəli sürülən əsas məsələlərin həll edilməsi üçün aparılan araşdırmalar nəticəsində turizm nəqliyyatının iqtisadi sisteminin idarə edilməsinə logistik yanaşmanın tətbiqinin elmi cəhətdən əsaslandırılaraq həll edilməsi, turizm və nəqliyyat sistemlərinin qarşılıqlı səmərəlili fəaliyyətinin yüksəldilməsinə və inkişafına, həmçinin ümumilikdə bu sistemə inteqrasiya proseslərinin gücləndirilməsinə səbəb olacaqdır.

**Ədəbiyyat**
1. Əhmədov H.M., Axundov Q.N. Turizmdə nəqliyyat təminatının təkmilləşdirilməsi və bu sahədə yeni daşıma vasitələrinin istifadə edilmə məqsədəuyğunluğu. Türkiyə, "Qalib xalqın müzəffər lideri-İlham Əliyev" adlı multidisiplinar beynəlxalq elmi konfrans. 25 noyabr 2023-cü il, səh. 479-484.
2. Əhmədov H.M., Axundov Q.N. Turizmin nəqliyyat təminatı kompleksi ilə əlaqədar müəssisələrin idarə edilmə metodlarının və xüsusiyyətlərinin araşdırılması. Bakı ş., MAA, Aviakosmik məsələlərin həllində gənclərin yaradıcı potensialı" mövzusunda IX beynəlxalq elmi-praktiki konfrans, 6-8 fevral 2024-cü il, səh. 120-127.
3. Кусков А.С. Транспортное обеспечение в туризме: учебник / А.С. Кусков, Ю.А. Джаладян. – М.: КНОРУС, 2016. -368 с.
4. Состояние и перспективы развития ключевых направлений мировой экономики в XXI веке. Ведерникова В.В., Корнеев А. Н., Костев К.О., Котельникова В.Е. М.: Мир науки, 2018. -112 с.

# TEKSTİL SƏNAYESİ MAŞINLARININ TİPİK MEXANİZMLƏRİNİN KOMPYUTER SİMULASYASI - ANALİTİK METOD.

**ƏLİYEV BALAXAN HACI**
Bakı Mühəndislik Universiteti
Mühəndislik/Mühəndislik elmləri
*baeliyev@beu.edu.az*
XIRDALAN, AZƏRBAYCAN

**BAKALAVR SEYİDZADƏ FİDAN FUAD**
**BAKALAVR BAYRAMOV İBRAHİM QƏNBƏR**
**BAKALAVR ƏLİYEV SADİQ BALAXAN**
Bakı Mühəndislik Universiteti
Mühəndislik/Mühəndislik elmləri
fseyidzade@std.beu.edu.az
ibayramov1@std.beu.edu.az
XIRDALAN, AZƏRBAYCAN
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
aliyevsadiq1616@gmail.com

**Xülasə:** Yüngül sənaye maşınlarının tipik mexanizmlərinin kinematik sxemlərinin kompüter simulyasiyasının ədədi-analitik metodunun dönmə mexanizminin nümunəsində tətbiqi tikiş maşınının sapının doldurulması nəzərə alınır; mexanizm Mathcad proqramında simulyasiya edilmiş, on iki mexanizm mövqeyinin qrafikləri və mexanizmin xarakterik nöqtələrinin trayektoriyaları tərtib edilmişdir; ədədi-analitik üsula və analitik üsula uyğun olaraq alınan mexanizmin xarakterik nöqtələrinin trayektoriyalarının müqayisəli təhlilini aparmışdır.

**Açar sözlər**: kompüter simulyasiyası, dinamika, dişli ötürmə, dizayn, maşınlar

**Summary:** The application of the numerical-analytical method of computer simulation of kinematic schemes of typical mechanisms of light industrial machines on the example of the rotary mechanism, the filling of the thread of the sewing machine is considered; the mechanism was simulated in the Mathcad program, graphs of twelve mechanism positions and trajectories of characteristic points of the mechanism were drawn; conducted a comparative analysis of the trajectories of the characteristic points of the mechanism obtained according to the numerical-analytical method and the analytical method.

**Keywords:** computer simulation, dynamics, gear transmission, design, machines

1. Giriş
2. Materiallar və Metod
3. Nəticələr və müzakirə

Kompüter simulyasiyası və tekstil mexanizmlərinin öyrənilməsi üçün maşınlar əsasən analitik metodlardan istifadə edir, onların əksəriyyəti vektor cəbrinin aparatlarından istifadə edir. Bu cür üsullar nəticələrin yüksək dəqiqliyi və müasir tətbiqi hesablama proqramlarında hesablamaların avtomatlaşdırılması imkanları ilə xarakterizə olunur.

Məsələn, mexanizmlərin kinematik sxemlərini məşhur vektor üçbucaqları [1] üsulu ilə və ya koordinatların vektor çevrilməsi [2] üsulu ilə modelləşdirmək üçün keçidlərin və ya xarakterik nöqtələrin mövqeyini təsvir edən formal riyazi ifadələr alınmalıdır. funksiyanın ümumiləşdirilmiş koordinatında mexanizm. Mövcud analitik metodların dezavantajı mexanizmin müəyyən strukturuna görə riyazi ifadələrin mürəkkəbliyidir. Bundan əlavə, bəzən onlardan istifadə edərək, xüsusilə mexanizmləri yüksək sinif üçün analitik həll əldə etmək mümkün olmur

Mexanizmlərin kinematik sxemlərinin kompüter simulyasiyası üçün alət ədədi üsullar ola bilər. [3]-də Draghilev tərəfindən düz İki krank mexanizminin öyrənilməsi üçün istifadə edilən ədədi-analitik metod haqqında məlumat verilmişdir. Draqilev metodundan istifadə etməklə düz krank roker mexanizmi əsasında qurulmuş toxuculuq traktor maşını ilə tipik tərs yivli mexanizmin simulyasiyasını həyata keçirək və nəticələri koordinatların vektor çevrilməsinin analitik metodu üçün alınan nəticələrlə müqayisə edək. Məlum parametrlər mexanizm bunlardır: aparıcı krankın uzunluğu -l1-2, birləşdirici çubuqun uzunluğu - l2-3 saplı dartıcı ilə - l3-5, rokçu uzunluğu - l4-3, birləşdirici çubuq və ip dartıcısının xətləri arasındakı bucaq – U2-3-5; qaldırıcı koordinatları. Mexanizmin həndəsi parametrlərinin P1(P1X, P1Y) və P4(P4X, P4Y) mənası cədvəl 1-də verilmişdir.

Cədvəl 1. Mexanizmin həndəsi parametrləri

| Parametr | $l_{1\text{-}2}$ | $l_{2\text{-}3}$ | $l_{4\text{-}3}$ | $l_{3\text{-}5}$ | $U_{2\text{-}3\text{-}5}$ | $\varphi_0$ |
|---|---|---|---|---|---|---|
| | MM | MM | MM | MM | dərəcə | dərəcə |
| Parametr dəyərləri | 15 | 25 | 30 | 40 | 240 | 120 |

[3]-dəki riyazi modellərdən istifadə edərək Mathcad proqram blokuna krank - birləşdirici çubuq - P2 (P2X, P2Y) və birləşdirici çubuq - rokçu - P3 (P3X, P3Y) kinematik cütlərinin koordinatlarını təyin etmək üçün əlavə edirik. Dragilev üsulu ilə ədədi həllin proqram blokuna elementləri mexanizmin kinematik cütlərinin koordinatlarının ilkin qiymətlərini təyin edən X0 = (X01, X02, X03, X04) T ilkin dəyərlərin matrisi. - P2X = x1 , P2Y = x2, P3X = x3, P3Y = x4. P2 nöqtəsinin koordinatlarının ilkin dəyərlərini $\phi^0$ bucağına uyğun olan mexanizmin başlanğıc vəziyyətində xətt krankının koordinat oxları üzərindəki proqnozlar vasitəsilə təyin etmək təklif olunur:

$$\begin{bmatrix} X0_1 \\ X0_2 \end{bmatrix} = \begin{bmatrix} P_{1X} + l_{1-2}\cos(\varphi_0) \\ P_{1Y} + l_{1-2}\sin(\varphi_0) \end{bmatrix}$$

P3 nöqtəsinin koordinatlarının ilkin dəyərləri - proqram blokundan istifadə edərək sistem mexanizminin məhdudiyyət tənliklərinin ayrılması ilə

Given
$x03 := -10мм \quad x04 := 40мм$
$(x03 - P_{4_X})^2 + (x04 - P_{4_Y})^2 = l_{4\_3}{}^2$
$(x03 - l_{1\_2}\cdot\cos(\varphi_0))^2 + (x04 - l_{1\_2}\cdot\sin(\varphi_0))^2 = l_{2\_3}{}^2$
$\begin{pmatrix} X03 \\ X04 \end{pmatrix} := Find(x03, x04)$

Verilmiş-Tap (Şəkil. 1):

Şəkil.1. P3 nöqtəsinin koordinatlarının ilkin qiymətlərini təyin etmək üçün proqram bloku ilə proqram siyahısı

Dragilev metoduna uyğun olaraq elementləri ümumiləşdirilmiş koordinat t-nin dəyərləri olan B [3] cədvəli şəklində decouplings əldə etdikdən sonra (səthlərin kəsişməsinin qövs uzunluqları tənliklərlə təsvir edilmişdir) mexanizm əlaqələri) və P2 və P3 kinematik cütlərinin koordinatları,

kinematik sxem mexanizmini simulyasiya edə bilərsiniz. Bunu etmək üçün P5 nöqtəsinin koordinatını təyin edirik - işçi iplik nöqtələri

$$\begin{bmatrix} P_{5X} \\ P_{5Y} \end{bmatrix} = \begin{bmatrix} P_{3X} + \frac{l_{3-5}}{l_{2-3}}\left(P_{3-2X}\cos(U_{2-3-5}) - P_{3\_2Y}\sin(U_{2-3-5})\right) \\ P_{3Y} + \frac{l_{3-5}}{l_{2-3}}\left(P_{3-2X}\sin(U_{2-3-5}) + P_{3\_2Y}\cos(U_{2-3-5})\right) \end{bmatrix};$$

$$\text{де } \begin{bmatrix} P_{3-2X} \\ P_{3-2Y} \end{bmatrix} = \begin{bmatrix} P_{2X} - P_{3X} \\ P_{2Y} - P_{3Y} \end{bmatrix}; \qquad \begin{bmatrix} P_{2X} \\ P_{2Y} \end{bmatrix} = \begin{bmatrix} B^{\langle 2 \rangle} \\ B^{\langle 3 \rangle} \end{bmatrix}; \qquad \begin{bmatrix} P_{3X} \\ P_{3Y} \end{bmatrix} = \begin{bmatrix} B^{\langle 4 \rangle} \\ B^{\langle 5 \rangle} \end{bmatrix}$$

Mexanizmin kinematik sxeminin Mathcad vasitəsi ilə modelləşdirilməsi seçilmiş koordinat sistemində mexanizmin xarakterik nöqtələrini birləşdirən xətləri əldə etmək və bu xətləri vahid mexanizm funksiyalarında birləşdirmək üçün Line istifadəçi funksiyasına əsaslanır.

$$Line(V_1, V_2, K) = \begin{bmatrix} V_{1_K} & V_{2_K} \end{bmatrix}^T; \; L_{1-2}(F_1, K) = Line\left(P_1, \begin{bmatrix} (P_{2X})_K \\ (P_{2Y})_K \end{bmatrix}, K\right);$$

$$L_{2-3}(F_1, K) = Line\left(\begin{bmatrix} (P_{2X})_K \\ (P_{2Y})_K \end{bmatrix}, \begin{bmatrix} (P_{3X})_K \\ (P_{3Y})_K \end{bmatrix}, K\right);$$

$$L_{3-4}(F_1, K) = Line\left(\begin{bmatrix} (P_{3X})_K \\ (P_{3Y})_K \end{bmatrix}, P_4, K\right);$$

$$L_{3-5}(F_1, K) = Line\left(\begin{bmatrix} (P_{3X})_K \\ (P_{3Y})_K \end{bmatrix}, \begin{bmatrix} (P_{5X})_K \\ (P_{5Y})_K \end{bmatrix}, K\right);$$

$$L_M(F_1, K) = augment\begin{pmatrix} L_{3-5}(F_1, K), L_{3-4}(F_1, K), \ldots \\ L_{2-3}(F_1, K), L_{1-2}(F_1, K) \end{pmatrix}, \qquad (1)$$

burada augment matrisləri üfüqi ilə birləşdirmək üçün Mathcad funksiyasıdır; K koordinat sisteminin oxunu təyin edən parametrdir. (1) ifadəsindən istifadə edərək mövqe qrafikləri mexanizm (Şəkil 2) və Mathcad-da kinematik sxemin animasiyası əldə edilir ki, bu da həmin mexanizmin işləkliyini və hər dövrədə budaqlanma qüsurunun olmadığını təsdiqləyir.

Hesablamanın düzgünlüyü Draqilev metodu və koordinatların vektor çevrilməsinin analitik üsulu ilə alınan mexanizmin xarakterik nöqtələrinin trayektoriyalarını müqayisə etməklə yoxlanılmışdır (şək. 3). Mexanizmin xarakterik nöqtələrinin metoda görə trayektoriyaları

Dragilev ifadəsinə görə qurulur:

PM (K) = arqumenti (P2k , P3k , P5k).




Şəkil. 2. Mexanizmin 12 mövqeyinin sxemi onun ilkin mövqeyi və xarakterik nöqtələrin trayektoriyaları ilə birləşdirilir.




Şəkil. 3. Alınan mexanizmin nöqtələrinin trayektoriyalarının qrafikləri ədədi-analitik üsul 1 və analitik üsul 2 Alınan mexanizmin xarakterik nöqtələrinin trayektoriyalarının təhlili metodu.

Dragilev və vektor çevrilməsinin analitik üsulu koordinatların bir faizdən az xəta ilə üst-üstə düşdüyünü göstərdi. Sonrakı tədqiqatlar CAD proqramlarından istifadə etməklə yüngül sənaye maşınlarının, o cümlədən yüksək sinif mexanizmlərinin düz və fəza mexanizmlərinin öyrənilməsi üçün ədədi metodların işlənib hazırlanmasına yönəldiləcəkdir.

**Ədəbiyat:**

1. Artobolevski I.I. Mexanizmlər və maşınlar nəzəriyyəsi / I.I. Artobolevski - M.: Elm. Ch. red. Fizika-Riyaziyyat. lit., 1988. - 640s.

2. Bezryadin V.M. krank tədqiqatı dörd keçidli tikiş ipi götürmə maşınlar / V. Bezryadin, V. M. Dvorzhak // Kiyev bülleten Milli Texnologiya və Dizayn Universiteti. Texniki elm. - 2017. - Xeyr. 6. - S. 26-34.

3. Dvorak V.N. Qoşa krankın kinematikasının öyrənilməsi tikiş maşınının sap dartma mexanizmi ədədi analitik üsul / V. Dvorak, M. Bezryadin // Mühəndislik mexanikasının aktual problemləri: IV Beynəlxalq elmi-praktik konfrans. Odessa, 16-19 may 2017-ci il - Odessa: OGASA, 2017. - S. 189-191.

# MAŞINLARIN KONSTRUKSİYA EDİLMƏSİNİN VƏ DİNAMİKİ PROSESLƏRİN OPTİMALLAŞDIRMA ÜSULLARI

**Əliyev Balaxan Hacı**
*baeliyev@beu.edu.az*

**QOCALI NURCAN CAVİD, MÜRSƏLOVA NAHİDƏ BƏHRUZ**
Bakı Mühəndislik Universiteti
Mühəndislik/Mühəndislik elmləri
nqocali@std.beu.edu.az
nmurselova1@std.beu.edu.az
XIRDALAN, AZƏRBAYCAN

**Xülasə:** İş dinamik proseslərin optimallaşdırılması və müxtəlif maşınların optimal dizaynı məsələlərinə həsr edilmişdir.İş bu cür dizayn, əməliyyat və digər parametrləri seçməyə imkan verən optimallaşdırma üsullarını tövsiyə edir, onların həyata keçirilməsində maşınların elastik sistemləri dinamik proseslərin zərərli təsirindən maksimum dərəcədə azad olur və maşınların özləri daha məhsuldar, etibarlı və davamlı olurlar.

**Açar sözlər:** detallarinin sərtliyi, çəkisi, ətalət momentləri, həndəsi ölçüləri, titrəməyə davamlılığı

**Abstract:** The work is devoted to the optimization of dynamic processes and the optimal design of various machines. The work recommends optimization methods that allow choosing such design, operation and other parameters, in the implementation of which flexible systems of machines are maximally freed from the harmful effects of dynamic processes, and the machines themselves are more they are productive, reliable and durable.

**Key words:** stiffness of details, weight, moments of inertia, geometric dimensions, vibration resistance

## GİRİŞ

Maşınların optimal konstruksiya edilməsi dedikdə onların detallarinin sərtliyi, çəkisi, ətalət momentlərin, həndəsi ölçüləri, titrəməyə davamlılığı və s. arqumentlərdən asılı olan maqsad (meyar) fuksiyasının müəyyən məhdudluq şərtləri daxilində ekstremal qiymətlərinin təyin edilməsi başa düşülür [1].

Son 35-40 ildə maşınların konstruksiya edilməsində yaranan elmi istiqamət EHM-in köməyi ilə qısa müddətdə daha məhsuldar, davamlı, uzunömürlü və nisbətən yüngül çəkili maşınların layihələndirilməsinə imkan verir.

Maşınların layihələndirilməsi (sintezi) üç mərhələdə aparılır:

1. Maşınların struktur sintezi. Struktur sintez maşınların struktur sxemlərinin və kinematik cütlərin konstruktiv elementlərinin düzgün seçilməsindən ibarətdir

2. Maşınların kinematik sintezi. Kinematik sintezdə maşın detallarının həndəsi olçüləri müəyyənləşdiri-lir. Bu mərhələdə detallara bərk cisim kimi baxılır və kinematik cütlərdə ara boşluqları naz alınmayır.ü

3. Maşınların dinamiki sinteri. Bu mərhələdə maşın detallarının materialları, sərtliyi, kütlələri, konstrukuv formaları və dinamiki yüklər elə müəyyənləşdirilir ki, yaradılan maşının lazımı möhkəmliyi, uzunömürlülüyü, texniki-iqtisadi əlverişliyi, titrəməyə davamlılığı və sair təmin edilsin.

Maşınların optimal lavihələndirilməsi aşağıdakı ardıcıllıqla aparılır: layihə edilən maşının dinamiki və riyazi modelləri tərtib edir: məqsəd (meyar) funkisyaları seçilir; sintez paremeiriərinin üzərinə qoyulmuş məhduduluq şərtləri müəyyənləşdirilir; optimallaşdırma metodlarından biri qəbul edilir və həmin metodla optimal lavihələndirmə yerinə yetrilir.-

Umumiyyətlə, optimallaşdırma riyaziyyatın məsələsidir. Riyaziyyatda optimallaşdırma dedikdə bir və ya bir neçə arqumentdən asılı olan məqsəd (meyar) funksiyanın ekstremumlarının araşdırılması başa düşülür. Latın dilində maksimum, minimum və ektremin sözləri ən böyük, ən kiçik və kənar deməkdir.

Optimallaşdırılması tələb olunan meyar funksiyasının bir neçə minimumu və maksimumu ola bilər. Minimumların ən kiçiyinə qlobal minimum, maksimumun ən böyüyünə qlobal maksimum, qalanlarına isə lokal (verli) minimum və lokal maksimum deyilir.

Riyazi optimallaşdırma üsulları iki yerə bölünür: a) klassik optimallaşdırma üsulları və ya xətti proqramlasdirma: qeyri – xətti prgramlaşdırma. Klassik optimallaşdırma üsulları analitik ifadəsi yazılan və differensiallana bilən lunksiyaların araşdırılmasında istifadə olunur. Bunun ücün funksiya ekstremumunun zəruru və kafi şərtlərini bilmək lazımdır.

Kəsilməz funksiyaların törəməsinin sıfıra bərabər olması, sonsuzluğa çevrilməsi və ya törəməsinin heç mövcud olmaması ckstremumun zəruri şərtidir. Funksiya törəməsini sıfra bərabər edən və ya sonsuzluğa çevirən arqument qiymətlərinə böhran nöqtələr deyilir. Kəsilməz aksiyanın kafi şərti funksiya qiymətinin və ya onun törəməsinin böhran nöqtələr ətrafında araşdırılmasından ibarətdiro

Son 200 ildə bu və ya digər məsələlərin optimallaşdırmasında riyaziyatın differinsial və variasiya hesablama metodlarından istifadə edilirdi [5]. Ikinci dünya müharibəsindən sonra «Əməliyyatlar nəzəriyyəsi» və EHM-in meydana gəlməsilə əlaqədar mürəkkəb xətti və qeyri xətti məsələri həll etmək imkanı verən daha səmərəli «Riyazi proqramlaşdırma» metodları meydana gəldi. Hal hazırda «Riyazi proqramlaşdırmaya» riyaziyatın xətt proqramlaşdırma, diskret proqramlaşdırma, qabarıq proqram-laşdırma, qeyri xətti proqramlaşdırma və natamam məlumatlı (stoxastik) proqramlaşdırma bölmələri daxildir.

Son illərdə 1000-dən artıq qeyri xətli proqramlaşdırma üsulu təklif olunub. Onların icarici amerkan alimi R.Bellmanın «Dinamiki programlaşdırma» və sovet alimi, akademik L.S.Pontrva «Optimal idarəetmə> optimallasdırma üsullarını xüsusi qeyd etmək lazımdır.

Amerkan alimi R.Bellmanın «Dinamiki proqramlaşdırma» metodunun mahiyyəti belədir. Bütöv bir prosesi xarakterizə edən məqsəd funksiyasini optimallaşdırmaqdan ötrü onu müəyyən mərhələlərə bölürlər. Hər mərhələ üçün fuksiyanın ekstremumları araşdırılır və nəticə kompüter yaddaşına verilir. Axırıncı mərhələyə kimi fuksiyanın optimal xüsusiyyəti barədə qəti söz demək mümkün olmur, ona görə Bellmanın təklif etdiyi üsul əlverişli sayılmır. Bu üsulla məsələnin optimal həlli zamanı bütün arqumentlər üçün məqsəd fuksiyasının qiymətdəri hesablanıb kompüter yaddaşında saxlanılmalıdır. Bu da böyük həcmli yaddaş qabiliyyəti olan hesablayıcı maşın tələb edir.

Akademik Pontryaqenin maksimum prinsipinə əsaslanan «Optimal idarəetmə» üsulu çox əlverişli üsuldur. Burada nisbətən az hesabat tələb edilir. Hesabat nəticələri tututdurulur, kiçik (və ya böyük) qiymətlər kompüter yaddaşında saxlanılır, qalanları isə atılır.

Qeyri-xətti proqramlaşdırmaya yuxarıda adı çəkilən üsullardan başqa Monte-Karlo. qradieni, relaksasiya, simpleks və s. üsullar da daxildir. Bütün bü üsullar üç böyük qrupa bölünür: təsadüf axtarış üsulları; yönəldilmiş axtarış üsulları; kombinə edilmiş axtarış üsulları.

**Təsadüfi axtarış üsulları**

Təsadüfi axtarış üsullarından ən geniş yayılmışi Monte-Karlo optimallaşdırma üsuludur. Bu üsulla maşınları layihələndirərkən məhdudluq şərtlərini ödəyən sintez parametrlərindən biri seçilir, məqsəd fuksiyasi hesablanır və kornpüter yaddaşına verilir. Sonra həmin sintez parametrinin başqa bir ixtiyari qiymətində məqsəd funksiyası hesablanır və onun əvvəlki qiyməti ilə tutuşdurulur: Əgər sonuncu qiymət əvvəlki qiymətdən kiçikdirsə sonuncu qiymət kompülerin yaddaşında saxlanılır, əvvəlki qiymət isə atılır.

Təsadün axtarış üsullarından sinicz mosalaigzindo istilado cinok alverişlidir, etibarlıdır. Olobal ekstrenumu tapmaq imkanı verir, amma çoxlu hesabai jalb edir. Bu üsullardan sintez parametrlərinin sayı 3-5 olan maşınların layihələndirilməsində istifadə etmək əlverişlidir.

**Yönəldilmiş axtarış üsulları**

Müasir kompüterlər az bir vaxt içərisində on min və hətta yüz minlərlə maşın variantını araşdırmağa imkan verir. Buna baxmayaraq layihələndirmə prosesin qısa müddətdə və az xərclə yerinə yetirmək üçün daha az hesabat tələb edən optimal sintez üsullarından istifadə etmək lazım gəlir. Bu nöqtəyi nəzərdən yönəldilmiş axtarış üsullarının böyük üstün cəhətləri vardır.

Qradient, relaksasiya, simpleks, tez enmə üsulları və s. yönəldilmiş axtarış üsulları adlanır. Bu üsullar maşınların sintezində təsadüfi axtarış üsullarına nisbətən xeyli az hesabat tələn edir. Burada bir qrup sintez parametrlərinin araşdırılmasından başqa bir qrup sintez parametrlərin araşdırılmasına keçid təsadüfi deyil, yönəldilmiş istiqamətində yerinə yetirilir. Belə yönəlmə məqsəd funksiyasının daha tez azalması istiqamətdə aparılır. Tutaq ki, *d, l, c...* kimi sintez parametrlərindən asılı olan *R(d, l, c...)* məqsədi funksiyasının minimal qiymətinin tapılması tələb olunur. Yönəldilmiş axtarış üsulu ilə belə məsələnin optimal həlli aşağıdakı ardıcıllıqla aparılır.

1. Təsadüfi axtarış üsullarında olduğu kimi sintez parametrlərin ilk ixtiyari qiymətləri *(d, l, c...)* seçilir, məhdudluq şərtləri yoxlanılır və məqsəd funksiyaları hesablanır.

2. Parametrlərdən biri, məsələn $d=d_1$ məhdudluq şərti daxilində müəyyən istiqamətdə hesabat addımı $\Delta d$ qədər dəyişdirilir. Qalan sintez parametrləri sabit saxlamaqla məqsəd funksiyası $d_1 + \Delta d$ üçün hesablanır. Əgər bu zaman məqsəd funksiyasının $\Delta_{max}$ qiyməti kiçilərsə d sintez parametrlərinin qəbul olnmuş dəyişmə istiqaməti saxlanılır və məqsəd sunksiyasının $d_1 + \Delta d$ üçün hesablanmış qiyməti kompüter yaddaşına verilir.

3. Bütün sintez parametrləri 2-ci bölməyə uyğun növbə ilə müəyyən istiqamətdə dəyişdirilir, məhdudluq şərtləri yoxlanılır və məqsəd funksiyasını qiyməti hesablanır. Alınmış nəticə məqsəd funksiyasının əvvəlki qiyməti ilə tutuşdurulur və kompüter yaddaşına verilir. Bu əməliyyat bütün sintez parametrlərini dəyişdirənə kimi və $\Delta_{max}$ məqsəd funksiyasının ən kiçik qy mətini tapana kimi davam etdirilir.

Bütün yönəldilmiş axtarış üsulları bir-birindən axtarış istiqamətinin və hesabat addımını seçilmə qaydasına görə fərqlənirlər.

**Qradient axtarış üsulları**

Yönəldilmiş axtarış üsullarından sintez məsələlərinin həllində ən geniş yayılmışı qradient üsuludur. Burada, məqsəd funksiyasından sintez parametrlərinə görə xüsusi törəmə alınır və funksiyanın minimumu sabit səviyyə xəttinə normal istiqamətdə, daha doğrusu qradient istiqamətində axtarılır.

$R(\bar{x})$ = const($\bar{x} \in E_m$ , burada $E_m$-m ölçülü evklid faza sistemi başa düşülür)- fünksiyası ilə ifadə olunan xətlər ailəsinə sabit səviyyə xətləri deyilir.

$R(\bar{x})$, funksiyasından sabit səviyyə xəttinə toxunan istiqamətdə alınmış törəmə sıfıra bərabər olur.

$\frac{\partial R(\bar{x})}{\partial \tau}=\sum_{i=1}^{m}\frac{\partial R(\bar{x})}{\partial x}$ cos($\bar{x}, €\bar{\tau}$)=0, burada cos($x, \tau$)-toxunan $\tau$ üzərindəki vahid vektorun $x_i$ oxu üzərindəki proyeksiyasıdır; $\partial R(\bar{x})/\partial x_i$ məqsəd funksiyasının sürət vektorunun $x_i$-oxu üzərindəki proyeksiyasıdır. $\partial R(\bar{x})/\partial \tau$ məqsəd funksiyasının sabit səviyyə xəttinə toxunan istiqamətdəki artım sürətidir. Yuxarıdakı ifadədən görünür ki, hər hansı bir vektora toxunan istiqamətdəki vahid vektorun slalyar həcmi sıfıra bərabər olarsa həmin vektorun özü sabit səviyyə xəttinə normal qradient istiqamətdə yönəlir.

$$\frac{\partial R(\bar{x})}{\partial x_i}=\left(\frac{\partial R(\bar{x})}{\partial x_1},\frac{\partial R(\bar{x})}{\partial x_2},\dots\frac{\partial R(\bar{x})}{\partial x_n}\right)=\frac{dR(\bar{x})}{dn}=Qrad\ R(\bar{x})$$




İfadəsindən görünür ki, $R(\bar{x})$ məqsəd funksiyasının sabit səviyyə xəttinə normal «n» istiqamət də törəməsi $\frac{dR(\bar{x})}{dn}$ bütün qalan istiqamətlərdəki törəmələrdən ən böyüyüdür. Daha doğrusu qradient vektorunun istiqaməti məqsəd funksiyasının ən tez artan istiqaməti ilə üst-üstə düşür. Qradientin bu xassəsindən optimal sintezdə geniş istifadə olunur.

Tutaq ki, $R(\bar{x})$ məqsəd funksiyasının qradient üsulu ilə minimumunu tapmaq tələb olunur. $x_i^k(x_1^k, x_2^k, \dots, x_n^k)$ nöqtəsi götürüb $R(\bar{x})$ funksiyasının həmin nöqtədəki törəməsi tapılır. Məqsədə tez çatmaq üçün qradientin əks istiqamətində addım atılır və funksiya üçün yeni qiymət (nöqtə) tapılır.

$$x_i^{kH}=x_i^k-h\frac{\partial R(\bar{x}^k)}{\partial x_i}$$

burada h-hesablama addımıdır.

Bu ifadədə qradient axtarış üsulunun alqoritmi adlanır. Hər addım hesabdan sonra $R(\bar{x}^k)$ ilə $R(\bar{x}^{k+1})$ qiymətləri müqayisə edilir. Əgər $R(\bar{x}^{k+1}) < R(\bar{x}^k)$ hesablama prosesi davam etdirilir. Əksinə $R(\bar{x}^{k+1}) > R(\bar{x}^k)$ olduqda addım $h$ iki dəfə azaldılır, geriyə qaydılır və yeni nöqtə tapılır və i.a.

$$x_i^{k+2}=x_i^{k+1}+\frac{h}{2}\frac{\partial R(\bar{x}^{k+1})}{\partial x_i}$$

**Relaksasiya axtarış üsulu**

Relaksasiya üsulu qradient axtarış üsulunun bir növüdür. Bu üsulun hesabat alqoritmi aşağıdakı kimi yazılır:

$$x_i^{kH}=x_i^k-h^k\ siqn\frac{\partial R(\bar{x}^k)}{\partial x_i}$$

burada $h^k$ k - nömrəli hesabatda qəbul edilən addımıdır; siqn z (siqnum)-işarə funksiyasıdır.

**Tez enmə axtarış üsulu**

Tez enmə axtarış üsulu da vönəldilmiş axtarış üsullarından biri olub qradient üsulunun bir formasıdır. Başqa qradient üsullarından fərqli olaraq məqsəd funksiyasının qiyməti hər addımda deyil, bir neçə addımdan sonra hesablanır. İlk qəbul edilmiş istiqamətdə funksiyanın minimum qiyməti

tapıldıqdan sonra yeni bir istiqamət seçilir və həmin istiqamətdə bir neçə addım atılaraq funksiyanın ən kiçik qiyməti tapılır və i.a.

Qradient axtarış üsulları nəzəri və tətbiqi məsələlərin optimal həllində geniş istifadə edilir. Hələ 1847-ci illərdə məşhur fransız alimi Koşi qeyri-xətti tənliklərin həllində tez enmə qradient axtarış üsulundan istifadə etmişdir.

**Kombinə edilmiş axtariş üsulları**

Yuxarıda qeyd etdik ki, yönəldilmiş axtarış üsulları lokal minimumu tapmaq imkan verir. Təsadüf axtarış üsullarından qlobal minimumu tapanda istifadə etmək daha əlverişlidir, lakin bu üsul həddindən çox hesablama tələb edir. Odur ki, maşınları optimal konstruksiya edilməsində istifadə kombinə edilmiş axtarış üsullarından istifadə etmək daha məqsədə uyğundur.

Kombinə axtarışla optimallaşdırma məsələlərini həll edərkən təsadüf va yönəldilmiş ilk axtarış üsullarının hər ikisi istifadə olunur. Bu zaman, məqsəd funksiyasının lokal minimumları yönəldilmiş axtarış üsulu ilə, qlobal minimumları isa təsadüfi axtarış üsulu vasitsilə tapılır.

**Maşınlarda dinamiki proseslərin optimallaşdırma üsulları**

Getdikcə, hərəkət sürəti və yükgötürmə qabiliyyəti artan maşınlara olan tələbatın çoxalması, onların konstruksiyası ilə yanaşı istismar zamanı meydana gələn dinamiki prosesini optimallaşdırılması problemini həll etmək lazımdır.

Maşınların dinamiki proseslərinin optimallaşdırması dedikdə istismar zamanı meydana gələn rəqsləri daha tez sönən və dinamiklik əmsalı mümkün qədər kiçik olan maşınların layihə edilməsi başa düşülür.

Texnoloji maşınlarda yaranan dinamiki prosesləri optimallaşdırılmasında mövcud metodlardan ən əlverişli sayılan ikisini qeyd etməyi lazım bilirik [4, 7, 8].

1. A.N. Qolubentsevin inteqral optimallaşdırma metodu [7]. Bu metod dinamiki modelinin sərbəstlik dərəcəsi 5-ə qədər olan maşınların dinamiki proseslərinin analizi və optimallaşdırılmasında çox əlverişlidir. Sərbəstlik dərəcəsi 5-dən çox olan maşınların dinamiki proseslərinin optimallaşdırılmasında bu üsuldan istifadə etmək həddindən artıq çətinləşir və məsləhət görülmür [4, 7, 8].

2. M. Sobol və R.B.Statnikovun təklif etdikləri «Fəza parametrləri» və ya «LP-axtarış» üsulu. Bu üsulun vasitəsilə istənilən maşının dinamiki proseslərini analiz etmək və optimallaşmaq mümkündür. LP-axtarış üsulunun başqa optimallaşdırma üsullarından çox boyük üstün cəhətləri var. Belə metodun vasitəsilə nisbətən qısa vaxtda və az hesabatla hətda mürəkkəb maşının ilk layihələndirmə mərhələsində gələcəkdə meydana gələn dinamiki proseslər barədə məlumat toplamaq mümkündür [4, 9].

**ƏDƏBİYYAT**

1. Səmidov X.S., Maşın və mexanizmlərin struktur analizi və sintezi. Bakı, 1988, 131 s.

2. Kəngərli A.M., «Maşın və mexanizmlər nəzəriyyəsi», Bakı, «Müəllim», 2004, 685s.

3. Фадеева В.К., Фадеев ДН. Вычислительные методы линейной алгебры. М. «Наука», 1968, 734с.

4. Самидов Х.С., Самидов Э.Х., Динамика и оптимальное конструирование машин. Баку, «Нурлан», 2004, 622с.

5. Уайлд Д.Дж., методы поиска экстремума. Перевод с англ. М. «Физматгиз», 1967, 267с.

6. Левитски Н.И., Теория механизмов и машин Москва, 1990, 612с.

7. Голубенцев А.Н., Интегральные методы динамике. Киев, «Техника», 1967, 360с.

8. Адамня Р.Ш., Михайленко Ф.Ф., Ограничения динамических нагрузок машинах. Тбилиси, «Мецниереба», 1989, 180с.

9. Соболь И.М., Статкников Р.Б., Постановка некоторых задач оптимального проектирования при помощи ЭВМ М., Препринт Института прикладной математики АНСССР. № 24, 1977, 20 с

# HAVA XƏTLƏRİNİN MƏFTİLLƏRİNİN MEXANİKİ MÖHKƏMLİYƏ GÖRƏ HESABLANMASININ KOMPÜTER MODELLƏŞDİRİLMƏSİ

**NƏCƏF ORUCOV**
Bakı Mühəndislik Universiteti
Mühəndislik fakültəsi/Avtomatika, telekommunikasiya və energetika kafedrasının dosenti
*norucov@beu.edu.az*
XIRDALAN, AZƏRBAYCAN

**BİLAL ASVAROV**
Bakı Mühəndislik Universiteti
Mühəndislik fakültəsi/Avtomatika, telekommunikasiya və energetika kafedrasının IV kurs tələbəsi
*abilal@std.beu.edu.az*
XIRDALAN, AZƏRBAYCAN

**XÜLASƏ**

Məqalə hava xətlərinin məftillərinin mexaniki möhkəmliyə görə hesablanmasının kompüter modelləşdirilməsinə həsr olunmuşdur. Bu məqsədlə hava xətlərinin məftillərinin mexaniki möhkəmliyə görə hesablanmasının əsasları nəzərdən keçirilmiş və kompüter modeli qurulmuşdur.

**ABSTRACT**

The article is devoted to the computer modeling of the calculation of the mechanical strength of the wires of the overhead lines. For this purpose, the basics of calculating the mechanical strength of overhead wires were reviewed and a computer model was built.

**AÇAR SÖZLƏR: hava xətti, məftillərin mexaniki möhkəmliyə görə hesablanması, məftilin hal tənliyi**
**KEYWORDS: overhead line, calculation of wires according to mechanical strength, equation of state of wire**

## GİRİŞ

İstismar zamanı hava xətlərinin məftilləri xarici mexaniki yüklərin – sırsıra və küləyin, həmçinin temperatur dəyişmələrinin təsirinə məruz qalır. İşlədiciləri fasiləsiz surətdə elektrik enerjisi ilə təmin etmək üçün hava xətlərinin məftilləri bu təsirlərə qarşı davamlı olmalıdır. Başqa sözlə, məftillər mexaniki möhkəmlik şərtini ödəməlidir. Elektrik qurğularının quruluş qaydalarına əsasən layihələndirilmə mərhələsində hava xətlərinin məftilləri mexaniki möhkəmlik şərtinə görə yoxlanmalıdır (Идельчик, 1989; Orucov və b., 2001). Bu məqsədlə məftillər mexaniki möhkəmliyə görə hesablanır. Məftillərin mexaniki möhkəmliyə görə hesablanması zamanı çoxlu sayda təkrar hesablamalar aparıldığından məsələnin həlli xeyli çətinləşir. Nəticədə kompüter texnologiyalarının tətbiqinə zərurət yaranır. Qeyd etmək lazımdır ki, bu sahədə bir sıra kompüter modellərinin (Щукин и др., 1982; Orucov və b., 2006) işlənməsinə baxmayaraq məsələ öz aktuallığını bu gün də saxlayır.

## TƏDQİQAT METODU

Hava xətlərinin məftillərini mexaniki möhkəmlik şərtinə görə yoxlamaq üçün müxtəlif iqlim şəraitində məftillərdə yaranan mexaniki gərginliklər təyin edilməlidir. Bu məqsədlə məftilin hal tənliyindən istifadə olunur (Orucov, 2022):

$$\sigma_n^3 - p\sigma_n^2 - r = 0, \quad (1)$$

(1) tənliyindəki $p$ və $r$ əmsalları $p = \sigma_m - \frac{\gamma_m^2 l^2 E}{24\sigma_m^2} - \alpha E(\theta_n - \theta_m)$, $r = \frac{\gamma_n^2 l^2 E}{24}$ ifadələri ilə təyin edilir. Burada $\gamma_m, \theta_m, \sigma_m$, $\gamma_n, \theta_n, \sigma_n$ - uyğun olaraq verilən ilk şəraitdə ($m$ şəraitində) və yeni şəraitdə ($n$ şəraitində) məftilin xüsusi mexaniki yükü, havanın temperaturu və məftildə yaranan mexaniki gərginlik; $l$ – aşırımın uzunluğu; $\alpha$ - məftilin materialının xətti genişlənməsinin temperatur əmsalı; $E$ – məftilin materialının elastiklik (Yunq) moduludur.

Göründüyü kimi məftilin hal tənliyi iki müxtəlif iqlim şəraitində məftilin xüsusi mexaniki yükü, havanın temperaturu və məftildə yaranan mexaniki gərginlik arasında əlaqə yaradır. Verilən ilk şəraitdə məftildə yaranan mexaniki gərginliyi $(\sigma_m)$ bilərək, yeni şəraitdə məftildə yaranan mexaniki gərginlik $(\sigma_n)$ məftilin hal tənliyindən təyin edilir.

(1) tənliyini həll etmək üçün Nyuton (toxunanlar) üsulundan istifadə edilir:

$$\sigma_{n(k+1)} = \sigma_{n(k)} - \frac{\sigma_{n(k)}^3 - p\sigma_{n(k)}^2 - r}{3\sigma_{n(k)}^2 - 2p\sigma_{n(k)}}, \quad k = 0,1,2,.... \quad (2)$$

(2) ifadəsi ilə hesablanma $\left|\sigma_{n(\kappa+1)} - \sigma_{n(k)}\right| \le \varepsilon$ şərti ödənilənə qədər davam etdirilir. Burada $\varepsilon$ -(1) tənliyinin kökünün tapılması üçün tələb olunan dəqiqlik olub, kiçik ədəddir.

Mexaniki gərginliklər $(\sigma_n)$ hesablanandan sonra məftillərin sallanma oxları $(f_n)$ təyin edilir:

$$f_n = \frac{\gamma_n l^2}{8\sigma_n}, \quad (3)$$

Verilən ilk şərait (*m* şəraiti) və onu xarakterizə edən kəmiyyətlər məftilin növündən (bircins və polad-alüminium məftillər olmasından) asılı olaraq müəyyən edilir.

Hava xətlərinin məftillərinin mexaniki möhkəmliyə görə hesablanması üçün kompüter modeli qurulmuşdur. Uyğun alqoritmin blok-sxemi şəkil 1-də göstərilmişdir.

Blok-sxemdən göründüyü kimi məftillərin mexaniki möhkəmliyə görə hesablanması aşağıdakı ardıcıllıqla yerinə yetirilir:

1. Məftilin xüsusi mexaniki yükləri təyin edilir.
2. Verilən ilk şərait və onu xarakterizə edən kəmiyyətlər seçilir.
3. Verilən ilk şərait və yeni şəraiti xarakterizə edən kəmiyyətlərdən asılı olaraq p və r əmsalları təyin edilir.
4. Nyuton (toxunanlar) üsulundan istifadə edilərək məftilin hal tənliyinin kökü tapılır.
5. Yeni şəraitdə məftilin sallanma oxu təyin edilir.




**Şəkil 1.** Məftillərin mexaniki möhkəmliyə görə hesablanması alqoritmin blok-sxemi

Verilən ilk şərait və onu xarakterizə edən kəmiyyətlərin seçilməsi məftilin növündən (bircins və ya polad-alüminium məftillər olmasından) asılı olaraq şəkil 2-dəki məntiqi sxemlərdə göstərilmişdir.

**a)**




**b)**




**Şəkil 2.** Bircins (a) və polad-alüminium (b) məftillərin mexaniki möhkəmliyə görə hesablanması zamanı verilən ilk şəraitin seçilməsinin məntiqi sxemi

Məntiqi sxemlərdən göründüyü kimi verilən ilk şəraitin seçilməsi aşırımın həqiqi uzunluğu ilə böhran aşırımının (üç böhran aşırımının) müqayisəsi əsasında müəyyən edilir.

**NƏTİCƏ**

Hava xətlərinin məftillərinin mexaniki möhkəmliyə görə hesablanması üçün işlənmiş kompüter modelindən hava xətlərinin layihələndirilməsində və tədris prosesində istifadə edilməsi tövsiyə edilir.

**ƏDƏBİYYAT SİYAHISI**

1. Идельчик, В.И. (1989). Электрические системы и сети. - М.: Энергоатомиздат, 592.
2. Orucov, A.O., Orucov, N.İ., Sadıqov, Q.S. (2001). Elektrik şəbəkə və sistemləri. Bakı, Elm, 210.
3. Щукин, Б.Д., Лыков, Ю.Ф. (1982). Применение ЭВМ для проектирования систем электроснабжения. М.: Энергоатомиздат, 174.
4. Orucov, N.İ., Sadıqov, Q.S. (2006). Hava xətlərinin məftillərinin mexaniki möhkəmliyə görə hesablanması. Elmi əsərlər. AzTU. Bakı, 1, 47-49.
5. Orucov, N.İ. (2022). Elektrik veriliş xətləri. Baki, BMU, 80.

# MODEMİ FASİLƏSİZ ENERJİ MƏNBƏYİLƏ TƏMİN EDƏN QURĞU

**Rəhbər: baş müəllim. Məmmədova F.V.**
**Tələbə:** Orxan Alıyev, Rəvan Məmmədov
**Fakültə:** Mühəndislik
**İxtisas**: Elektrik və elektronika mühəndisliyi
**Qrup:** 1072 A

**Xülasə:** Bu layihədə şəbəkədən elektrik enerjisi verilməsinin kəsildiyi zaman modemin işinin fasiləsizliyini təmin etmək üçün fasiləsiz enerji mənbəyindən (FEM) istifadə edilməsi təqdim edilmişdir. Şəbəkə gərginliyində fasilə olan zaman modemin fəaliyyəti dayanır və nəticədə internet xidmətindən istifadədə fasilə yaranmış olur. Məlumdur ki, müasir dövrdə internetdən istifadə zamanı sürətlə yanaşı bu xidmətin fasiləsizliyinin təmin edilməsi də çox mühümdür. İnternetin kəsilməzliyi onlayn oyunlar, səs xidmətindən istifadə, tibbi və texnoloji proseslərə müdaxilələr zamanı kimi hallarda vacibdir və belə hallarda fasilələrin olması ciddi narahatlıqlara səbəb olur. İnternet istifadəsi zamanı bu kimi fasilələrin baş verməməsi üçün modemin fasiləsiz enerji mənbəyi ilə təmin edilməsi vacibdir. Təqdim edilən qurğu modem ilə elektrik şəbəkəsi arasında qoşulur və şəbəkədən verilən enerjinin kəsilməsi zamanı ani olaraq dövrəyə qoşulmaqla modemi fasiləsiz enerji ilə təmin edir. FEM cihazı cərəyanın itməsini bildirən indikatorla təchiz edilmişdir. Şəbəkədəki cərəyanın itməsi zamanı cihazda istifadə olunan rele qurğunu dövrəyə qoşur və modemə lazım olan gərginlik FEM-dən təmin edilir. Beləliklə, bu layihədə biz elektrik kəsilməsi zamanı iternet bağlantısının fasiləsizliyini təmin edən bir sistem qurmuş oluruq. Bu qurğu elektrik itkisinin qarşısını almağa və iş zamanı internetə çıxışın fasiləsizliyini qorumağa kömək edir.

**Abstract.** In this project, the use of an uninterruptible power source is presented to ensure the continuity of the modem's operation when the power supply from the network is interrupted. When there is a break in the network voltage, the modem stops working, and as a result, there is a break in the use of the Internet service. It is known that in modern age when using the Internet, it is very important to ensure the continuity of this service in addition to the data speed. Internet continuity is important in situations such as online gaming, use of voice services, interventions in medical and technological processes, and interruptions in such situations cause serious concerns. It is important to provide the modem with an uninterrupted power source so that such interruptions do not occur during Internet use. The provided device is connected between the modem and the energy source and provides uninterrupted power to the modem by instantly connecting to the circuit during a mains power failure. So, in this project, we are building a system that ensures uninterrupted internet connection during power outages. This device helps prevent power loss and maintain uninterrupted Internet access during work.

**Açar sözlər:** şəbəkə gərginliyi, fasiləsiz enerji mənbəyi, modemin fasiləsiz işləməsi, internet istifadəsi.

**Key words:** main energy source, uninterruptible power source, uninterrupted operation of the modem, use of internet.

**Giriş.** Fasiləsiz enerji mənbəyi (FEM) əsas şəbəkədə elektrikin kəsilməsi və ya nasazlığı halında elektrik cihazlarını ehtiyat enerji ilə təmin edən qurğudur. O, alternativ enerji mənbəyi kimi çıxış edərək, cihazların fasiləsiz işləməsini təmin edir. Fasiləsiz enerji mənbəyi gərginlik itkisini, gərginliyin artıb-azalmasını və elektrik kəsilməsindən qorunmanı təmin edir. Modemlər, kompüterlər, serverlər, marşrutlaşdırıcılar və digər cihazlar kimi həssas elektron avadanlıqları potensial zədələrdən və məlumat itkisindən qorumaq üçün FEM həm yaşayış, həm də kommersiya obyektləri üçün vacibdir. O, istifadəçilərə işlərini qənaət etməyə, sistemləri düzgün şəkildə bağlamaq və fasilələr və ya məhsuldarlığın itirilməsinin qarşısını almağa imkan verir. Fasiləsiz enerji mənbəyi seçərkən, güc tutumu, batareyanın işləmə müddəti, çıxışlar, qoşulma variantları və gərginliyin artıb-azalmasında qorunma da daxil olmaqla, maksimum yükləmə qabiliyyəti, batareyanın işləmə müddəti, gərginliyin tənzimlənməsi və monitorinq imkanları kimi müəyyən xüsusiyyətlər və spesifikasiyalar nəzərə

alınmalıdır. Bu xüsusiyyətlər FEM xüsusi güc tələblərinizə cavab verməsini təmin edir və fövqəladə hallar zamanı kifayət qədər ehtiyat vaxtı təmin edir.



***Şəkil 1.*** *Fasiləsiz enerji mənbəyinin modemə qoşulması.*

**Tədqiqat metodu.** Hazırlanan bu qurğu elektrik enerjisinin kəsilməsi nəticəsində modemə daxil olan gərginliyin davamlı olmasına nəzarəti həyata keçirir. Bununla da modemin işinin davamlılığı və internet verilişinin fasiləsizliyi təmin olunur. Fasiləsiz enerji mənbəyi batareya və cərəyanın itməsini bildirən indikatorla təchiz olunmuşdur. Şəbəkədən elektrik enerjisi kəsilən zaman bir neçə mkrosaniyə gecikmə olur. Modemin işləməsində kəsinti olmasın deyə kondensator bu qısa zaman ərzində modemi elektrik enerjisi ilə təmin edir. Layihədə fasiləsiz enerji mənbəyində modemi elektrik enerjisi ilə təmin etmək üçün batareyalardan istifadə edilmişdir. Qurğunun modemi gərginliklə təmin etmə müddəti fasiləsiz enerji mənbəyinın hazırlanması zamanı istifadə olunan batareyaların gücündən və sayından asılıdır. Beləliklə, bu layihədə təqdim olunan qurğu elektrik itkisinin qarşısını almağa və istifadə zamanı internetə çıxışın fasiləsizliyini qorumağa kömək edəcəkdir. Bu sistem modemi yalnız kəsintilər zamanı ehtiyat enerji ilə təmin etmir, həm də onu gərginlik sıçrayışlarından qoruyaraq, gərginlik qoruyucusu kimi çıxış edir. Bu əlavə qorunma modemin xidmət müddətini uzatmağa kömək edir və ani enerji artımları nəticəsində yaranan zədə riskini azaldır.

İlk növbədə FEM -in enerjisini depolamaq üçün 18-650 -lik batareyalardan istifadə olunmuşdur. Batareyaların sayından və tutumundan asılı olaraq fasiləsiz enerji mənbəyinin gücü dəyişə bilir. Bu qurğuda TP 4056 tipli enerji yükləmə modulundan istifadə edilmişdir. Bu moduldan 18-650-lik batareyaları yükləmək üçün yararlanacayıq. Batareyalar 3.7V-luqdur, lakin modemdən 12 volt gərginlik gəldiyi üçün gərginlik düşürücü tənzimləyici tətbiq edilmişdir. Qurğuda 12V-luq 5000-lik rele istifadə edəcəyik. Relenin vəzifəsi elektrik enerjisinin kəsildiyi və ya bərpa olunduğu zaman fasiləsiz enerji mənbəyini dövrəyə qoşmaq yaxud açmaqdır. Elektrik kəsilən zaman relenin işə düşməsinə qədər bir neçə mikrosaniyə gecikmə olur və modemin işləməsində kəsinti olmasın deyə dövrədə istifadə olunan 2200 mkF-lıq kondensator bu qısa zaman ərzində modemi elektriklə təmin edir. Qurğunun enerji yükləmə modulu 5V-la işləyir, lakin qida mənbəyindən verilən gərginlik 12V olduğundan burada gərginlik düşürücü tənzimləyici qoyulmuşdur. Layihələndirilən sxemdə həmçinin 3 ədəd N4007 yarımkeçirici diodlardan istifadə edilmişdir.




***Şəkil 2.*** *Fasiləsiz enerji mənbəyinin elektrik sxemi.*

Layihədə istifadə olunan cihaz və qurğular:
18-650 -lik 3.7 V – luq batareya - 2 ədəd,
TP 4056 şarj modulu - 1 ədəd,
Tənzimləyici - 2 ədəd,
12v 5000-lik rele - 1 ədəd,
2200 mkF tutumlu kondensator - 1 ədəd,
N4007 diodu - 3 ədəd.

**Nəticə.** Elektronik cihaz və qurğuların istismarı zamanı fasiləsiz enerji mənbəyinin (FEM) olması müxtəlif səbəblərə görə vacibdir. FEM, elektrik enerjisinin qəfil itməsi zamanı ehtiyat gücü təmin edərək, cihazların və qurğuların işlək qalmasını təmin edir. Başqa sözlə, bu sistem avadanlıqları qəfil elektrik enerjisi kəsilmələrindən qoruyur. FEM, işimizdə və ya fəaliyyətimizdə hər hansı bir maneənin qarşısını almaq üçün kəsilmələr zamanı dərhal enerji təchizatı təmin etmək üçün nəzərdə tutulmuşdur. O, əsas enerji mənbəyi ilə modem arasında bufer rolunu oynayır və istifadəçini fasiləsiz internetlə təmin etməyə imkan verir. Bu zaman məlumat itkisinin qarşısını alınır. Elektrik kəsilməsi mühüm məlumatları və sənədləri riskə ataraq məlumat itkisinə səbəb ola bilər. Fasiləsiz enerji mənbəyi davam etməkdə olan işi yaddaşda saxlamaq üçün kifayət qədər vaxt verir və beləliklə, hər hansı məlumat itkisinin qarşısını alır. Bu, əsas fəaliyyəti məlumatlar bazasında qurulan müəssisələr üçün xüsusilə vacibdir.

Fasiləsiz enerji mənbəyi güc artımlarına qarşı qorunma tədbirlərini də yerinə yetirir. Belə ki, elektrik enerjisinin kəsilməsi yaxud qəfil artıb-azalması istifadə edilən cihazların zədələnməsinə və nəticədə bahalı təmirə ehtiyac olmasına səbəb ola bilər. FEM bu mənada avadanlıqlar üçün bir qoruyucu maneə rolunu oynayır, gərginliyi tənzimləyir və hətta gərginliyin artıb-azalması zananı da davamlı enerji təchizatını təmin edir. O, artıq gərginliyi udur və qiymətli elektronika cihazlarını qoruyur, həssas avadanlıqların sabit işləməsini təmin edir. Məlumdur ki, serverlər, tibbi cihazlar, təhlükəsizlik sistemləri və digər bu kimi müəyyən avadanlıqlar daimi enerji təchizatı tələb edir. Fasiləsiz enerji mənbəyi tələb olunan enerjini kəsintisiz həyata keçirməklə kritik sistemlərin işlək qalmasını təmin edir və enerjinin qəfil kəsilməsi nəticəsində yarana biləcək hər hansı potensial zərərin və ya itkilərin qarşısını alır.

**Ədəbiyyat**

1. *Hümbətov R.T. "Elektronika" I hissə (elektron cihazları). Maarif nəşr. Bakı, 2010 cu il.*
2. *Hümbətov R.T. "Elektronika" II hissə (elektron qurğuları). Maarif nəşr. Bakı, 2010 cu il.*
3. *Hümbətov R.T. "Rəqəmsal elektronika" Bakı Mühəndislik Universitetinin nəşri. Bakı, 2022 ci il.*
4. *Hümbətov R.T. "Analoq elektronika" Bakı Mühəndislik Universitetinin nəşri. Bakı, 2022 ci il.*
5. *E.F. Sultanov, F.V. Məmmədova, "Gəmi elektronikası və güc çeviriciləri", ADDA, Bakı, 2020 - 180 səh.*

# GÜNƏŞ ŞÜALARININ HƏRƏKƏTİNİ İZLƏYƏN "ROBOTİK GÜNƏBAXAN" QURĞUSU

**Rəhbər:** baş müəllim, Məmmədova F.V. **Tələbə:** Rafiq Şükürov, Əli Xəlilov
Bakı Mühəndislik Universiteti
**Fakültə:** Mühəndislik**, İxtisas**: Kompüter Mühəndisliyi
*Email: famammadova@beu.edu.az, rshukurov@std.beu.edu.az, exelilov5@std.beu.edu.az*
Bakı, Azərbaycan

**Xülasə:** Məlumdur ki, ətraf mühit müxtəlif tip elektrik stansiyalardan atılan tullantılarla çox ciddi şəkildə çirklənir. Proses bu şəkildə davam edərsə, növbəti bir neçə onillikdə dünya ekoloji fəlakətlə üz-üzə qala bilər. Bu səbəbdən elm adamları və mütəxəssislər alternativ enerji istehsalını inkişaf etdirmək üçün daima çalışırlar. Enerji böhranının həlli üçün ekoloji cəhətdən təmiz və əlverişli olan günəş elektrik stansiyaları getdikcə daha geniş yayılmağa başlamaqdadır. Günəş batareyası günəş işığının təsiri altında qütblərdə yükü yenidən bölüşdürməyə qadir olan yarımkeçiricilər - ardıcıl olaraq bağlanmış günəş batareyaları zənciridir. Bəzi səbəblərdən panellər bütün enerjini toplaya və çevirə bilmir. Bir günəş stansiyasının səmərəliliyinin azalmasına təsir edən amillərə misal olaraq havanın bəzən əlverişli olmaması, elektrik enerjisinin çevrilməsi və daşınması zamanı itkilər və günəş işığının düşmə bucağıdır. Günəşin enerjisindən müxtəlif məqsədlər üçün istifadə edə bilərik. Onlardan biri də elektrik enerjisinin istehsalıdır. Bu layihədə günəş enerjisindən elektrik enerjisi əldə etmək üçün təkmilləşdirilmiş bir qurğudan istifadə edilmişdir.[3] Alternativ enerji mənbəyi olan günəş enerjisindən istifadə edən yaşayış evləri, müəssisələr və idarələr üçün bu qurğu çox faydalı olacaqdır. Təqdim edilən qurğunun əsas məqsədi günəş panellərini uyğunlaşdıracaq avtomatik izləmə sistemi ilə elektrik enerjisi istehsal etməkdir. Günəş enerjisindən maksimum istifadə etmək üçün qurğu işığın maksimum intensivliyini izləyir. Zamanla Günəşin hərəkəti səbəbindən işığın intensivliyi azaldığından, bu sistem avtomatik olaraq işığın maksimum intensivliyini əldə etmək üçün istiqamətini dəyişir. Qurğuda tətbiq olunan LDR işıq detektoru günəşin koordinatlarını izləmək üçün istifadə olunur. Günəş panelləri hava və günün vaxtı kimi amillərə uyğun olmayan günəş işığından asılıdır. Bu dəyişkənlik enerji istehsalının etibarlılığına təsir göstərə bilər. Bunu həll etmək üçün Günəş şüalarının daha intensiv olduğu dövrlərdə əldə edilən enerjini saxlamaq və ehtiyac olduğu vaxtda istifadə etmək üçün müvafiq batareyalardan istifadə olunur.[5]

**Abstract.** It is known that the environment is seriously polluted by wastes from various types of power plants. If the process continues in this way, the world may face an ecological disaster in a few decades. For this reason, scientists and experts are constantly working to develop alternative energy production. To solve the energy crisis, environmentally friendly and convenient solar power plants are becoming more and more widespread. A solar panel is a chain of solar cells connected in series - semiconductors capable of redistributing charge at the poles under the influence of sunlight. For some reasons, the panels cannot collect and convert all the energy. Examples of factors that affect the efficiency of a solar plant are sometimes unfavorable weather, losses during the conversion and transmission of electricity, and the angle of incidence of sunlight. We can use the energy of the sun for various purposes. [3] One of them is the production of electricity. In this project, an elaborated device was used to obtain electricity from solar energy. This device will be very useful for homes, businesses and offices that use solar energy as an alternative energy source. The main purpose of the presented device is to produce electricity with an automatic tracking system that will adapt the solar panels. To make the most of solar energy, the device monitors the maximum intensity of light. As the light intensity decreases over time due to the movement of the Sun, this system automatically changes the direction of the light to achieve maximum intensity. The LDR light detector applied in the device is used to track the coordinates of the sun. Solar panels depend on sunlight, which is inconsistent with factors such as weather and time of day. This variability can affect the reliability of power generation. To solve this, appropriate batteries are used to store the energy obtained during periods when the Sun's rays are more intense and used when needed.[5]

**Açar sözlər:** alternativ enerji mənbəyi, işığın maksimum intensivliyi, işıq detektoru, günəş enerjisi, günəş paneli.

**Key words:** alternative energy source, maximum light intensity, light detector, solar energy, solar panel.

**Giriş.** Bu gün dünyanın, xüsusilə üçüncü dünya ölkələrinin üzləşdiyi enerji çatışmazlığı problemlərini həll etmək üçün tədqiqatçıları ənənəvi enerji ilə birgə alternativ enerji mənbələrini tapmağa çağırır. Əsas alternativ enerji mənbələrinə günəş, nüvə və külək enerjiləri daxildir.

Günəş enerjisinin potensialı çox böyükdür və onun gələcəyi çox ümidvericidir. Texnoloji irəliləyişlər günəş panellərini tikintidə daha səmərəli və rəqabətədavamlı hala gətirdikcə, onların qəbulu getdikcə sürətlənir. İnteqrasiya edilmiş günəş panelləri, binaya inteqrasiya olunmuş fotovoltaiklər və icma günəş layihələri kimi innovativ həllər günəş enerjisinin əhatə dairəsini genişləndirməkdə mühüm rol oynamağa başlamaqdadır.

Günəş enerjisi günəş radiasiyasının gücündən istifadə etməklə əldə edilən enerjidir. Bu enerji növü iqlimi ən az çirkləndirə bilən, ən təmiz enerji mənbəyi hesab edilir. Yerin qəbul etdiyi günəşdən gələn enerji təxminən 1,8 × 1011 MVt təşkil edir ki, bu da bütün digər istifadə olunan kommersiya enerji mənbələrindən yer üzündə mövcud istehlak nisbətindən minlərlə dəfə böyükdür. Günəş enerjisi ilə bağlı əsas problem onun şualandırılmış olmasıdır. Yerin ən isti bölgələrində belə, mövcud günəş radiasiya axını nadir hallarda 1 kVt/m-dən çox olur ki, bu da texnoloji istifadə üçün kifayət deyil. Bu problem günəş çıxandan gün batana qədər panelin səthinə dəyən günəş şüalarının maksimum intensivliyini təmin edən günəş izləyicisi vasitəsi ilə aradan qaldırıla bilər.

Bu qurğu günəşin gün ərzində hərəkət etməsi ilə paralel olaraq hərəkət edir. "Robotik Günəbaxan"ın məqsədi gün ərzində panellərə çatan günəş işığının intensivliyini maksimuma çatdırmaqdır. Günəş panelləri günəşə doğru baxdıqda alternativ enerji istehsalı daha effektiv halda olur. Buna görə də qurğu günəşin gündüz boyunca gediş yolunu izləyir, günəş panellərinin üzərinə düşən işıq bucağını maksimuma çatdırmağa nail olur. Zamanla işığın intensivliyi azalır, bu sistem avtomatik olaraq işığın maksimum intensivliyini əldə etmək üçün istiqamətini dəyişir. Nəticədə əldə edilən enerji normal günəş panelindən əldə edilən enerjidən daha çox olur.



***Şəkil 1.*** *"Robotik Günəbaxan" qurğusunun xarici görünüşü*

**Qurğu aşağıdakı hissələrdən ibarətdir:**

- TDA2822 – tipli gücləndirici- IC DIP-8 qutusundadır və 2 kanallı Audio Gücləndiricilər IC-dir. Ümumilikdə 2 kanalla birləşdirilmiş TDA2822M Audio Gücləndiricilər AB sinif gücləndirici dizaynına malikdir. İnteqrasiya edilmiş TDA2822M Audio Gücləndiricilər 32 Om çıxış empedansı ilə 2W audio çıxışı təmin edir.
- 2 ədəd fotorezistor- LDR (Light Dependent Rezistor) - adından da göründüyü kimi, fotokeçiricilik prinsipi ilə işləyən xüsusi bir rezistor növüdür və müqaviməti işığın intensivliyinə görə dəyişir. Yəni, onun müqaviməti işığın intensivliyinin artması ilə azalır.
- 2 ədəd 10 kOm-luq müqavimət elektron dövrədə elektrik cərəyanını məhdudlaşdırmaq və ya tənzimləmək, siqnal səviyyələrini tənzimləmək, gərginliyi bölmək və s. üçün bir çox tətbiqdə istifadə olunan passiv elektron dövrə elementidir. Müqavimət vahidi Om-dur.
- 1 ədəd servo motor ( 360 dərəcəli) MG995 məşhur servo motor modeli və bir çox elektron və robot layihələrində istifadə edilən güclü motor növüdür. MG995 servo mühərrikləri yüksək keyfiyyət göstəriciləri və davamlılığı sayəsində bir çox fərqli layihələrdə istifadə zamanı üstünlük təşkil edir.

- 1 ədəd 6V 100mA Günəş Paneli - Günəş batareyası. Hazırkı layihədə istifadə edilən işıq şüasını elektrik enerjisinə çevirən günəş paneli. Günəş işığı altında maksimum performansla işləyir. Bu panel süni işıq altında da aşağı cərəyan verə bilir. Məsələn, telefon flaşı ilə 5 mm-lik LED-i yandıra bilər.
- Litium batareya - 5 voltluq. Bu batareyaların tətbiq sahələri çox genişdir. Əsas üstünlüklərindən biri yenidən şarj edilə bilməsidir. Litium batareyaları müasir elektron cihazlara qoyulan yüksək tələbatları ödəmək üçün istifadə olunur. Robotik Günəbaxanda 3.7 V və 4.8 V - luq batareyalardan istifadə edilmişdir.[1]
- Batareya doldurma modulları elektrik cərəyanı təmin etməklə təkrar doldurulan batareyaların tutumunu bərpa etmək üçün nəzərdə tutulmuşdur. Bu modul, həddindən artıq yüklənmənin qarşısını almaq və düzgün doldurma gərginliyini saxlamaqla batareyaların uzunömürlülüyünü və optimal işləməsini təmin edir
- Birləşdirici naqillər.




***Şəkil 2.*** *"Robotik Günəbaxan" qurğusunun elektrik sxemi*

**Tədqiqat metodu.** Robotik Günəbaxan-ın məqsədi gün ərzində günəş panellərinə çatan günəş işığını maksimuma çatdırmaqdır. Günəş şüalarının günəş panelinə $90^o$ bucaq altında düşməyini mümkün qədər təmin etmək üçün fotorezistorlu (LDR) işıq detektorundan istifadə olunur. Panelin istiqamətini müvafiq istiqamətlərə döndərmək üçün, bir sabit cərəyanla (DC) işləyən servo motordan istifadə olunur. Sistem iki fotorezistor tərəfindən idarə olunur və əsas idarəedici qurğu kimi mikrokontrollerdən istifadə edilmişdir. Normal halda iki fotorezistorun sıxaclarında 5 volt gərginlik var. [2] Əgər fotorezistorlardan birinə işıq düşərsə, iki fotorezistor arasında gərginliklər fərqi yaranır və ona uyğun olaraq servo motor hərəkətə gəlir. Əgər gərginliklər fərqi sıfra bərabər olarsa həmin vaxt servo motor hərəkətini dayandırır. Nəticə olaraq panel sola-sağa doğru hərəkət etməklə işıq mənbəyi istiqamətində dönür. Nəhayət, qurğu günəşi izləyə bilir və motorun sürətindən asılı olaraq çıxışda maksimum enerji əldə etmək mümkün olur. Robotik Günəbaxan-ın əsas xüsusiyyətləri aşağıdakılardan ibarətdir:

- Yüksək səmərəlilik.
- Öz enerjisini saxlama və istifadə etmə imkanı.
- Daha az maliyyə, daha yaxşı keyfiyyət.
- İstifadəçi dostu interfeysinə malik olma.
- Portativlik.

**Nəticə.** Günəşin şüalarının hərəkətini izləyən "Robotik Günəbaxan" qurğusu modeli verilmiş spesifikasiyalar nəzərə alınmaqla hazırlanmışdır. Sistem mühərrikin sürətindən asılı olmayaraq çıxışda maksimum güc əldə etmək üçün Günəşin intensivliyini izləyə və onu təqib edə bilir. Bundan əlavə, motorun sürət parametrinin təsirini neytrallaşdırmaq üçün aşağı sürətli sabit cərəyan mühərrik-

reduktordan istifadə edilmişdir ki, nəticədə qurğu yalnız Günəşin intensivliyini izləməyə diqqət yetirir. Sistem yaşayış massivlərində alternativ elektrik enerjisi istehsalı üçün, xüsusilə çox kritik olmayan və az gücə malik cihazlar üçün tətbiq oluna bilər. Artıq bir çox ölkələrdə, günəş enerjisi ilə işləyən təyyarələr, gəmilər, avtomobillər, ev əşyaları var, müxtəlif qurğular və binalar bu enerji ilə təmin olunur.

Günəş enerjisinin istifadəsinin üstünlüyü ondadır ki, günəş qurğuları işləyən zaman parnik effekti yaranmır, havanın çirklənməsi baş vermir, istilik aşağı atmosfer qatlarına yayılmır. Göründüyü kimi, Azərbaycan ərazisinə düşən günəş şüalarının miqdarı və vaxtı bir çox digər ölkələrlə müqayisədə üstünlük təşkil edir ki, bu da günəş enerjisindən istifadənin tətbiqinə sərmayələrin cəlb edilməsinin səmərəlilik meyarlarından biri kimi qiymətləndirilə bilər. Artıq ölkəmizdə bununla bağlı müəyyən pilot layihələr həyata keçirilib. Bəzi ərazilərdə Günəş panelləri stansiyaları quraşdırılıb. Bundan başqa, bir sıra binaların damında günəş batareyaları quraşdırılmışdır və enerji təminatı demək olar ki, tam olaraq bu batareyalardan alınır. Günəş panelləri təkcə ekoloji faydalar təklif etmir, həm də aşağı enerji xərcləri, iş imkanları və enerjinin özünü təmin etmə perspektivi də daxil olmaqla iqtisadi üstünlüklər təqdim edir.

**Ədəbiyyat siyahısı**

1. Hümbətov R.T. “Rəqəmsal elektronika” Bakı Mühəndislik Universitetinin nəşri. Bakı, 2022 ci il.
2. Hümbətov R.T. “Analoq elektronika” Bakı Mühəndislik Universitetinin nəşri. Bakı, 2022 ci il.
3. www.playgroundai.com
4. www.alldatasheet.com
5. www.elprocus.com

# DESIGN OF HUMAN FOLLOWING ROBOT USING ARDUINO

**ZARIFA DASHDAMIRLI**
Baku Engineering University
Engineering / Automation, Telecommunications, and
Power Engineering
*zdashdemirli@std.beu.edu.az*
BAKU, AZERBAIJAN

**RAUF MEHDIYEV**
Baku Engineering University
Engineering / Automation, Telecommunications, and
Power Engineering
*rmehdiyev2@std.beu.edu.az*
BAKU, AZERBAIJAN

**HAMED KAGHAZCHI**
Baku Engineering University
Engineering/Automation, Telecommunications, and
Power Engineering
*hkaghazchi@ beu.edu.az*
BAKU, AZERBAIJAN

**ABSTRACT**

The primary purpose of "human-following robots" is to enhance human convenience and efficiency by providing autonomous companionship and assistance in various settings. These robots are designed to follow individuals and carry out tasks such as carrying groceries, aiding in navigation, or providing support for people with mobility challenges. By understanding their objectives, we can

grasp the potential benefits they offer in terms of improving our daily lives. This Arduino robot has a sensor that can detect any object near it and can follow this object. If you come in front of the robot, it will start following you. Thus, ultrasonic sensors and IR sensors help to follow the subject.

**KEYWORDS: Motor Driver, Arduino Uno, Ultrasonic and infrared sensor**

## INTRODUCTION

Over the last few years, robotic technology has evolved significantly from being merely a utopian dream for some. Automation has become a priority in any kind of work, giving birth to robots. A robot is a programmable, automated device that replaces human intervention in basic daily activities and even in activities that people think cannot be altered, such as consultancy or any field related to art. There are plenty of robots that can assist in multiple aspects of human life. Among these machine assistants, a robot that can detect and follow humans or obstacles within a certain range is called a "Human Following Robot."

There are some prefixes in the Arduino, so if your hand is away from the sensor, it will not read that. And if your hand is near the sensor, it will read it. Now Arduino knows that there is something in front of the sensor and Arduino sends some instructions to the motor forward. So this is how the human-following robot works.

## MATERIAL AND METHOD

Core: Arduino Uno and Motor Control (L298N Motor Driver) are the brains of this project. They are presented in more detail in the following sections.

Arduino Uno: It is the brain of the object. It can give all the commands to its components which should be operated by the human. So it can be used as a medium of communication between humans and robots.

Arduino Uno is an open-source microcontroller board based on the Microchip ATmega328P microcontroller and developed by Arduino. The board is equipped with sets of digital and analog I/O pins that may be interfaced with various expansion boards (shields) and other circuits. The board has 14 digital I/O pins (six capable of PWM output) and 6 analog I/O pins and is programmable with the Arduino IDE (Integrated Development Environment) via a USB B cable. It can be powered by the USB cable or by an external 9-volt battery, though it accepts voltages between 7 and 20 volts. It is similar to the Arduino Nano and Leonardo. The hardware reference design is distributed under a Creative Commons Attribution Share-Alike 2.5 license and is available on the Arduino website. Layout and production files for some versions of the hardware are also available [1].

L298N Motor Driver: The L298N motor driver is responsible for controlling the motors connected to the robot's wheels. The "move forward," "stop motors," and "turn left" functions in the Arduino code control the motor driver to achieve the desired movements. The L298N is a dual H-Bridge motor driver that allows speed and direction control of two DC motors at the same time. The module can drive DC motors that have voltages between 5 and 35V, with a peak current of up to 2A [2].

Detection: We used two fundamental sensors for object detection: the HC-SR04 ultrasonic sensor and the IR infrared sensor.

Ultrasonic Sensor: It can provide crucial information for tasks like obstacle avoidance, navigation, and object detection.

Ultrasonic sensing is one of the best ways to sense proximity and detect levels with high reliability. The HC-SR04 is a non-contact ultrasound sonar device that consists of two ultrasonic transmitters (basically speakers), a receiver, and a control circuit for measuring the distance to an object. The transmitters send out a 40kHz ultrasonic pulse that travels through the air and bounces off nearby solid objects or obstacles, and the receiver listens to any return echo. The control circuit then analyzes the echo to determine the timing difference between the transmitted and received signals. This time may then be used to calculate the distance between the sensor and the reflected object using some smart arithmetic. The distance can be estimated by multiplying the travel time by the sound speed [3].

Infrared Sensor: The infrared sensor detects the object's distance with infrared radiation when the beam from the transmitter detects an object.

Infrared radiation is recognized by using the infrared (IR) sensor. It is an electronic device whose function is to perceive infrared in the surrounding area. William Herschel understood that the temperature of the red tone is the most significant during assessing this temperature for every shade of light (segregated by a gem). As the frequency is longer than that of visible light (anyway this point on a comparative electromagnetic reach), IR will be imperceptible for common eyes. Infrared radiation is sent by whatever produces heat (the temperature around five degrees Kelvin is the least for everything). When it is used as a combination of an IR transmitter and a receiver, the beneficiary's repetition should move closer to the transmitter. The beneficiary is an IR photodiode, and the transmitter is an IR LED. The infrared photodiode can be used with infrared light provided by an infrared LED. Concerning the infrared light captured, the square of the photograph diode and the difference in output voltage are calculated. This is the terrible working principle of the IR sensor. When the infrared transmitter emits emission, it is detected by the object, with a portion of the outflow reflecting toward the infrared collector. The sensor's output can be set by the IR collector based on the response's power. The functional criteria of the infrared sensor are similar to that of the item identification sensor. The sensor fuses (IR LED) and (IR photodiode), and soon the two are connected to form an optocoupler. This true scientific law for sensors is sheet radiation, Stephen Boltzmann's law. The Stefan–Boltzmann law describes the power radiated from a black body in terms of its temperature. Specifically, the Stefan–Boltzmann law states that the total energy radiated per unit surface area of a black body across all wavelengths per unit time (also known as the black-body radiant emittance) is directly proportional to the fourth power of the black body's thermodynamic temperature. IR LEDs are generally emitters that emit IR radiation. The LED is similar to standard LEDs with radiation that is not discernible to normal eyes. Infrared beneficiaries essentially use infrared emitters to sense radiation. These infrared receivers are accessible in a photodiode structure. Infrared photodiodes are classified as standard photodiodes because they perceive infrared radiation[4].

Ultrasonic and IR Sensor Principle: This ultrasonic sensor is mounted on the robot's top, and a pair of IR sensors are mounted on either side of it. We used an ultrasonic sensor to avoid obstacles and keep the object at a fixed distance. The ultrasonic sensor has a range of 4 meters and is extremely accurate. Ultrasonic sensors operate by calculating the time differences. When an object is detected by infrared radiation, the beam from the transmitter returns to the receiver with an angle after reflection, also known as the method of triangulation. This helps in the calculation of the distance traveled by the robot and eliminates any further errors in the robotic movement due to displacement. IR sensor controls the movement of motors, and the ultrasonic sensor detects the obstacle and stops the motors[4].

Movement: To make the robot move itself, wheels, TT direct circuit motor, and servo motor were used. The TT DC motor manipulated the direction of the robot's movement. It controlled independently four wheels of the robot so that it could mimic any 4-wheel behavior that could enable the robot to turn in any direction.

Wheel: The robot is controlled independently by four wheels. Wheels of robot behavior that could enable the robot to turn in any direction.

TT DC Motor: It is a device that converts any form of energy into mechanical energy. The motor usually plays an important role by giving movement to the robot.

Battery and Battery holder: The battery and battery holder in a robot work together to provide electrical power. The battery stores electrical energy while the battery holder securely houses the battery.




Fig. 1. Human following robot circuit diagram.

**CONCLUSION**

This robot does not only have the detection capability but also the following ability as well. While making this prototype, it was also kept in mind that the functioning of the robot should be as efficient as possible. Tests were performed on different conditions to pinpoint the mistakes in the algorithm and to correct them. The different sensors integrated with the robot provided an additional advantage. The human-following robot is an automobile system that can recognize obstacles, move, and change the robot's position toward the subject in the best way to remain on its track. This project uses Arduino, motors, and different types of sensors to achieve its goal. This project challenged all the separate parts to cooperate, communicate, and expand their understanding of electronics, mechanical systems, and their integration with programming.

**REFERENCES**

1. /1/Arduino Uno - Wikipedia
2. /2/L298N Motor Driver - Arduino Interface, How It Works, Codes, Schematics (howtomechatronics.com)
3. /3/PiBorg | Ultrasonic Distance Sensor (HC-SR04)
4. /4/Infrared (IR) Sensor Module with Arduino – A blog about DIY solar and arduino projects (solarduino.com)

# BLYNK VƏ NODEMCU ESP8266 ISTIFADƏ EDƏRƏK HEYVAN BƏSLƏYƏN SISTEM

**HAMED KAGHAZCHI**
Bakı Mühəndislik Universiteti
Mühəndislik Fakültəsi/Avtomatika,
Telekommunikasiya və Energetika Kafedrası
*hkaghazchi@beu.edu.az*

**ƏLI SƏFƏRLI İBAD NƏSRULLAYEV**
Bakı Mühəndislik Universiteti Bakı Mühəndislik Universiteti
Mühəndislik Fakültəsi/Avtomatika, Mühəndislik Fakültəsi/Avtomatika,
Telekommunikasiya və Energetika Kafedrası Telekommunikasiya və Energetika Kafedrası
*eseferli4@std.beu.edu.az inesrullayev@std.beu.edu.az*
BAKI, AZƏRBAYCAN

**XÜLASƏ**

NodeMCU mikro kontrolleri və Blynk platformasının imkanlarından istifadə edərək, bu layihə ev heyvanlarına qulluq sahəsində texnoloji sıçrayışı təmsil edir, bizim heyvan yoldaşlarımızla qarşılıqlı əlaqəmizi və onlara qayğı göstərməyimizi əsaslı şəkildə dəyişdirir. Özündə bu innovativ sistem ev heyvanları sahiblərinə rahat uzaqdan giriş və nəzarət səviyyəsini təklif edir, onlara sevimli ev heyvanlarını zaman və məkan məhdudiyyətlərini aşaraq, demək olar ki, istənilən yerdən qidalandırmaq və su vermək imkanı verir. Ev heyvanlarımızın vaxtında qidalanmasını təmin etmək üçün evə tələsməkdən narahat olunan günlər geridə qaldı. NodeMCU və Blynk ilə ev heyvanları sahibləri əmin ola bilərlər ki, onların tüklü dostları harada olduqlarından asılı olmayaraq, onlara lazım olan qidanı və suyu alırlar. Bununla belə, layihə sadəcə rahatlıqdan da kənara çıxır. O, istifadəçilərə ev heyvanlarının sağlamlığı və qidalanma vərdişləri haqqında dəyərli məlumatlar təqdim edərək, məlumat analitikası və ev heyvanlarının davranışının izlənməsi sahəsinə də daxil olur. Bəslənmə fəaliyyətləri ilə bağlı məlumatların toplanması və təhlili ilə sistemi ev heyvanlarının gündəlik rejiminə və qida ehtiyaclarına bir pəncərə təqdim edir və sahiblərinə onların qayğısına dair əsaslandırılmış qərarlar qəbul etmək səlahiyyətini verir. Məlumata əsaslanan bu yanaşma yalnız ev heyvanlarının davranışını daha dərindən başa düşməyi təşviq etmir, həm də sahiblərinə potensial problemləri kəskinləşməmişdən əvvəl aşkar etməyə və həll etməyə imkan verən sağlamlıq idarəçiliyinə də imkan verir. Bundan əlavə, layihə müasir texnoloji həllərdə davamlılığın vacibliyini dərk edərək enerji səmərəliliyinə güclü diqqət yetirir. NodeMCU esp8266 kimi az enerji istehlak edən dövrə istifadə etməklə sistem uzunmüddətli etibarlılıq və performansı təmin etməklə yanaşı, ətraf mühitə təsirini minimuma endirir. Bu ekoloji şüurlu yanaşma təkcə planetə fayda vermir, həm də ətraf mühitə təsirini minimuma endirməyə çalışan ev heyvanları sahiblərinin dəyərlərinə uyğun gəlir. Əslində, bu layihə texnoloji yenilikdən daha çoxunu təmsil edir. Bu, bizim ev heyvanlarımıza qayğı göstərməyimiz və onlarla qarşılıqlı əlaqəmizdə köklü dəyişikliyi təcəssüm etdirir. Qabaqcıl texnologiyanı insanlar və heyvanlar arasında mükəmməl şəkildə birləşdirərək, ev heyvanlarına qayğını yeni zirvələrə yüksəldir, həm ev heyvanlarının, həm də onların sahiblərinin həyatını asanlaşdırır. Ev heyvanlarına sahibliyin bu yeni dövrünü qəbul etdikcə, biz kəşf səyahətinə çıxırıq, daha dərindən dərk etmək, inkişaf etmiş texnologiya və rifah arasında qırılmaz bağların potensialını açırıq.

**AÇAR SÖZLƏR: IOT, NodeMcu esp8266, Blynk**

## GIRIŞ

Bu tədqiqat Blynk platforması vasitəsilə idarə olunan NodeMCU ESP8266 istifadə edərək IoT əsaslı ev heyvanlarının qidalanması və suvarılması sisteminin yaradılmasına yönəlib. Məqsəd məşğul həyat tərzinin nizamsız iş cədvəllərinin səbəb ola biləcəyi müasir ev heyvanlarına qulluq problemlərinin aktuallığını həll etməkdir. Sistemin avtomatlaşdırılması və uzaqdan izləmə imkanları yeni və praktik həll təklif edərək ev heyvanlarının rifahına töhfə verir. NodeMCU ESP8266 və Blynk-dən istifadə etməklə, bu tədqiqat ev heyvanlarının vaxtında və adekvat qidalanmasının təmin

edilməsində kritik boşluğu doldurараq, IoT texnologiyalarının gündəlik ev heyvanlarına baxılmasına inteqrasiyasının elmi yeniliyini nümayiş etdirir.

Heyvanlara qulluğun avtomatlaşdırılması sahəsində aparılan cari tədqiqatlar, ilk növbədə, IoT kimi qabaqcıl texnologiyaların məhdud inteqrasiyası ilə ənənəvi metodologiyalara diqqət yetirərək təqdirəlayiq addımlar atmışdır. Bu, daha çox kəşfiyyat və innovasiyalara ehtiyac olduğunu vurğulayaraq, bu sahədə əhəmiyyətli bir boşluğu ortaya qoyur. Mövcud işlər təməl anlayışı təmin etsə də, onlar ev heyvanlarına qulluq təcrübələrində inqilab etmək üçün inkişaf etməkdə olan texnologiyalardan istifadə etmirlər. Bu tədqiqat ev heyvanlarına qulluq sistemlərinin təkmilliyini və əlçatanlığını yüksəltmək məqsədi ilə IoT inteqrasiyasını daha dərindən araşdıraraq irəliləyişin zərurətinə toxunur. Ən müasir texnologiyaların tətbiqi ilə bu tədqiqat mövcud boşluqları aradan qaldırmağa və müasir ev heyvanları sahiblərinin gözləntilərinə uyğun daha səmərəli, istifadəçi dostu həllər təklif etməyə çalışır.

Bu layihəni icra etmək üçün ev avtomatlaşdırılmasında və IoT layihələrində geniş istifadə olunan esp8266 çipindən istifadə edən ESP-12E modulunun ən geniş yayılmış və ucuz inkişaf kartı olan NodeMcu və onun tətbiqi haqqında tədqiqat apardıq [1]. Ümumiyyətlə, bu cür inkşaf kartları ölçüsü və qiyməti baxımından yalnız prototip və ya hobbi avadanlıqlarının hazırlanmasında istifadə olunur. Bu kartlar ilə relelər və hərəkət sensorlarının internet üzərindən istifadəsinə dair nümunələr çox olsa da, step motorların internet üzərindən istifadə edilməsinə aid çox nümunə yoxdur [2]. Lakin, biz bunların hamısına baxmayaraq uğurlu nəticələr aldıq.

Bu sistemin qurulması üçün ilk öncə Blynk proqramında esp8266 uyğun yeni yeni interfeys yaratdıq. Bunu ilk eləməyimizin səbəbi daha sonra burdan aldığımız ID və adları mikrokontrollerə daxil etdik [3]. Mikrokontrolleri Arduino IDE üzərində interfeysimizin datastreamlərinə uyğun şəkildə kodladıq. Mikrokontrolleri uyğun modullarla breadboard üzərində birləşdirdik. Sistemin güc mənbəyini əlavə edib sınaqdan keçirdik. Daha sonra dizayn etdiyimiz 3d hissələri çap edərək bütün parçaları bir araya gətirib sistemi hazır vəziyyətə gətirdik [4].

**TƏDQIQAT METODU**




**Şəkil 1.** Layihənin işləmə sxemi

Cihaz internet üzərindən Blynk tətbiqi vasitəsilə NodeMcu mikrokontrollerinə göndərilən əmrlər vasitəsilə işləyir. Bu əmrlər yem və su təmin edən hissələri idarə etmək üçün istifadə olunur. İstifadəçi bu əmrləri smartfon və ya digər cihazda Blynk proqramından istifadə edərək göndərir.

Mikrokontroller (NodeMcu) heyvanın varlığı haqqında məlumatı aşkar etmək üçün HC-SR501 PIR sensorundan istifadə edir. Bu sensor hərəkəti aşkar etdikdə mikrokontrollerə siqnal göndərir. Mikrokontroller bu siqnalı alır və heyvanın varlığını göstərən bir vəziyyəti aşkar edir.

Yem təmin edən hissə üçün mikrokontroller Blynk tətbiqindən gələn əmrlərə əsaslanan step motoruidarə edir. Step motor müəyyən miqdarda yem buraxmaq üçün istifadə olunur. Su təmin edən

hissə üçün mikrokontroller müəyyən müddət ərzində su nasosunu işlətməklə suyun axmasını təmin edir.

Dövrədə istifadə olunan materiallar: 9V 1A adapter, NodeMcu, Buck convertor, 5V Relay, HC-SR501 PIR sensor, Breadbord,ULN2003 motor sürücü, 28byj48 step motor, Mini dalğıc su nasosu.



**Şəkil 2.** Layihənin ümumi görünüşü

Biz bu layihədə 9V 1A güç mənbəyi istifadə etsək də, rele, mikrokontroller və su nasosu maksimium işləmə gərginlikləri 5V a yaxındır. Burada gərginliyi azaltmaq üçün buck converter əlverişlidir



**Şəkil 3.** Buck convertor

Buck convertor üzərindəki potensiometrdən istifadə edərək 9V gərginliyi rahatlıqla 5Vçıxacaq şəkildə tənzimləyirik.

ULN2003 driver-i mikrokontrollerə (NodeMcu) qoşarkən ilk növbədə ULN2003 məlumat cədvəlini nəzərdən keçirmək vacibdir. Bu, düzgün pinləri müəyyən etmək və əlaqələri düzgün qurmaq üçün lazımdır.

9V mənbə ULN2003 sürücüsünə qoşulmalıdır. Bu, sürücünün güc tələblərinə cavab verəcək və düzgün işləməsini təmin edəcəkdir. 9V təchizatı sürücünün VCC və GND pinlərinə qoşulur.

Sonra NodeMcu-dan GPIO pinlər seçilir və ULN2003 driver-in istənilən INx giriş pininə (IN1, IN2, IN3, IN4) qoşulur. Burada diqqət edilməli olan hissə daha sonra Arduino IDE-də pinlər tanıdılarkən NodeMcu GPIO pinlərinin driver-in giriş pinlərinə uyğun şəkildə doğru tanıdılmasıdır. Bu əlaqə mikrokontrollerə driver vasitəsilə step motoru idarə etməyə imkan verir. Hansı INx pinindən istifadə ediləcəyi step motorun fırlanma istiqamətindən və iş rejimindən asılıdır. Məsələn, IN1 və IN2 pinləri ümumiyyətlə irəli və geri üçün istifadə olunur.

ULN2003 sürücüsünün OUT1-OUT4 çıxış pinləri step motoru birləşdirmək üçün istifadə olunur. 28BYJ48 step motorun dörd naqilindən biri hər OUT pininə bağlıdır. Bu birləşmələr step motorun hər bir hissəsini hərəkətə gətirir və mühərrikin fırlanma istiqamətini təyin edir.

Bağlantılar qurulduqdan sonra NodeMcu-da göstərilən GPIO pinləri ULN2003 sürücüsü vasitəsilə step motoru idarə edir. Bu sayədə step motorun fırlanma istiqaməti və sürəti asanlıqla tənzimlənə bilər, beləliklə qidalanma mexanizmi istənildiyi kimi idarə edilə bilər.



**Şəkil 4.** Step motor və driver



**Şəkil 5.** Yem verən mexanizmin 3d modeli

Daha sonra su nasosusumuz, rele və mikrokontrolleri 5V hissəyə bağlayırıq. Releni mikrokontroller vasitəsilə su motorunu açıb-qapamaq üçün istifadə edirik. Relenin bir hissəsinə 5V mənbə və NodeMcu mikrokontrollerinin uyğun GPIO pini digər tərəfinə isə su nasosununu işlətmək üçün 3-5V mənbə və bu mənbənin arasına su nasosunu birləşdiririk.



**Şəkil 6.** NodeMcu mikrokontroller




**Şəkil 7.** 5V təkkanallı rele



**Şəkil 8.** Mini dalğıc su nasosu

Son olaraq sensorumuz da uyğun olaraq 9V mənbə və uyğun NodeMcu pinlərinə birləşdirilir. Bu sensor ətrafda canlı təyin etmək üçün ətraf mühitdəki canlıların bədənindən yayılan infraqırmızı şüalardan istifadə edir [5].



**Şəkil 9.** HC-SR501 Passiv Infraqırmızı (PIR)

Mənbə kodu:

istifadə olunan pinlər və dəyişənlər müəyyən edilir. Bu pinlər arasında PIR sensoru üçün D7, rele üçün D6 pini və step motor üçün dörd kabelli əlaqə daxildir (bu layihədə D1,D2,D3,D4 pinləri istifadə edilib).

Setup() funksiyasında serial rabitə işə salınır və taymerlər müəyyən edilir. PIR sensoru və rele pinləri giriş kimi təyin edilir. Step motorun idarəetmə pinləri çıxış kimi təyin edilir və Blynk bağlantısı işə salınır.

BLYNK_WRITE(V0) funksiyası Blynk tətbiqindən V0 düyməsinin vəziyyətini alır və onu motor dəyişənində saxlayır.

motiondetect() funksiyası PIR sensorunun vəziyyətini oxuyur və vəziyyətə əsasən sətir yaradır. Bu sətir daha sonra Blynk proqramında V1 vidcetinə yazılır.

relayState() funksiyası rele pininin vəziyyətini oxuyur və vəziyyətə əsasən sətir yaradır. Bu sətir daha sonra Blynk proqramında V2 vidcetinə yazılır.

Loop() funksiyası Blynk bağlantısını saxlayır və taymerləri işə salır.

BLYNK_CONNECTED() funksiyası Blynk bağlantısı qurulduqda işləyir və Blynk proqramında V1, V2 vidcetləri və V0, V3 düymələri sinxronlaşdırır.

Sequence() funksiyası Step motor fırlatmaq üçün dörd addımlı ardıcıllıq forması yaradır.

stepper_run() funksiyası step motorunu müəyyən sayda addım irəlilədir və bunu edərkən Blynk proqramında V4 vidcetinə mesaj yazır.

stepperControl() funksiyası motorun vəziyyətindən asılı olaraq step motoru işə salır və ya dayandırır və Blynk proqramında V4 vidcetinə müvafiq mesajlar yazır.

Kodun redaktə edilməli olduğu bəzi yerlər bunlardır:

Wi-Fi və Blynk məlumatları: WiFi SSID və parol daxil edilməlidir (yerdən asılı olaraq fərqli olur).

Blynk Layihə Məlumatı: BLYNK_TEMPLATE_ID və BLYNK_TEMPLATE_NAME hissələri düzgün göstərilməlidir (hər istifadəçiyə görə fərqlilik göstərir).

Rele və PIR pinləri: Qoşulmuş rele və PIR sensor pinləri düzgün olmalıdır.

Step Motor pinləri: Step motorun dörd idarəetmə pini düzgün GPIO pinlərinə təyin edilməlidir.

Motorun işləmə müddəti: Step motorun hərəkət etməli olduğu addımların sayı stepper_run() funksiyasında göstərilmişdir. Bu rəqəm veriləcək yemin miqdarından və motorun fiziki xüsusiyyətlərindən asılı olaraq tənzimlənməlidir.

```
// Blynk ve WiFi məlumatları
#define BLYNK_TEMPLATE_ID "**************************"
#define BLYNK_TEMPLATE_NAME "Pet Feeder"
#define BLYNK_AUTH_TOKEN "**************************"

#define BLYNK_PRINT Serial // Serial Monitor'a çıxış verir

#include <ESP8266WiFi.h> // ESP8266 üçün
#include <BlynkSimpleEsp8266.h> // ESP8266 blynk içində tanımlamaq üçün

char auth[] = BLYNK_AUTH_TOKEN;
char ssid[] = "**************************";
char pass[] = "**************************";

BlynkTimer timer;

// Pin tanınlanması
#define PIR_PIN D7
#define RELAY_PIN 12
#define WIRE_1 D1
#define WIRE_2 D2
#define WIRE_3 D3
#define WIRE_4 D4

const uint16_t DELAY_TIME = 1; // Step motor üçün gecikme müddəti

int motorState;

// Funksiya tanımlanması
void setup() {
 Serial.begin(9600);
```

```
 timer.setInterval(1000L, motionDetect);
 timer.setInterval(1000L, relayState);
 timer.setInterval(1000L, stepperControl);

 pinMode(PIR_PIN, INPUT);
 pinMode(RELAY_PIN, INPUT);
 pinMode(WIRE_1, OUTPUT);
 pinMode(WIRE_2, OUTPUT);
 pinMode(WIRE_3, OUTPUT);
 pinMode(WIRE_4, OUTPUT);

 Blynk.begin(auth, ssid, pass);
}

BLYNK_WRITE(V0) { //Blynkdən interfeysindən uyğun dəyişkən alınır
 motorState = param.asInt();
}

void loop() { //Burda əsasən blynk serveri ilə əlaqəli funksiyalar işə salınır
 Blynk.run();
 timer.run();
}

BLYNK_CONNECTED() {
 Blynk.syncVirtual(V0, V1, V2, V3); //düymə vəziyyətləri yenilənir
}

void motionDetect() { //hərəkət sensoru ilə əlaqə
 String message;
 if (digitalRead(PIR_PIN) == HIGH) {
 message = "Burdayam";
 } else {
 message = "bura boşdu";
 }
 Blynk.virtualWrite(V1, message);
}

void relayState() { //su nasosunun rele ilə idarəedilməsi
 String message;
 if (digitalRead(RELAY_PIN) == HIGH) {
 message = "fəvvarə sönülüdür";
 } else {
 message = "fəvvarə sönülüdür";
 }
 Blynk.virtualWrite(V2, message);
}

void sequence(bool a, bool b, bool c, bool d) { //step motor üçün kabellərin sadələşdirilməsi
 digitalWrite(WIRE_1, a);
 digitalWrite(WIRE_2, b);
 digitalWrite(WIRE_3, c);
 digitalWrite(WIRE_4, d);
 delay(DELAY_TIME);
}
```

```
void stepper_run() { //step motorun sürülməsi
 Blynk.virtualWrite(V4, "Heyvan yemlənir");
 for (int i = 0; i < 7000; i++) { //fırlanma sayı burda dəyişdirilə bilər
 sequence(HIGH, LOW, LOW, LOW);
 sequence(HIGH, HIGH, LOW, LOW);
 sequence(LOW, HIGH, LOW, LOW);
 sequence(LOW, HIGH, HIGH, LOW);
 sequence(LOW, LOW, HIGH, LOW);
 sequence(LOW, LOW, HIGH, HIGH);
 sequence(LOW, LOW, LOW, HIGH);
 sequence(HIGH, LOW, LOW, HIGH);
 }
 sequence(HIGH, LOW, LOW, LOW);
}

void stepperControl() { //step motorun idarəedilməsi
 if (motorState == 1) {
 Blynk.virtualWrite(V4, "Heyvan yemlənir");
 stepper_run();
 motorState = 0;
 } else {
 Blynk.virtualWrite(V0, 0); // Uygulamadaki V0 düğmesini kapat
 Blynk.virtualWrite(V4, " ");
 }
}
```

**NƏTICƏ**

Bu layihənin ilkin prototipini yarandan sonra bunu real situasiyalarda sınaqdan keçirtdik və bəzi nəticələr əldə etdik. İlkin olaraq Wifi texnologiyası və Blynk interfeysi ilə komanda və cavab kombinasiyaları gözlədiyimizdən daha yüksək sürətlə işlədi. Əlbəttə ki, idarətmənin də sürətli olmasında NodeMcu dövrə kartının arduinoya nəzərən daha yüksək clock sürətinə malik olması da burda mühüm rol oynadı. Laikin əgər bura layihəyə kamera sistemi də integrasiya edilmək istənilsə o zaman daha yüksək PSRAM-a malik daha esp32 modulları (məsələn esp32 wrover e) istifadə edilməlidir.

Daha sonra işlətdiyimiz mənbələr kiçik gərginliklərdə olduğu üçün tranzistorda istifadə etmək (məsələn 2N3906) daha kiçik maliyyətli olacaq və sistemin sürətinə, ölçüsünə və enerji sərfiyyatına də az da olsa təsir edəcək.

Daha kiçik məsafələrdə canlıları təyin edə bilən mini PIR sensorun istifadə edilməsi həm enerji sərfiyyatın azaldacaq həm də maliyyə və systemin ölçüsü baxımından daha yaxşı olacaq

Və son olaraq cihazı istifadə etmək üçün istifadə olunan interfeysi daha da təkmilləşdirərək sistemi daha əlçatan və istifadəyə rahat etmək.

Cihaz hazırda enerji sərdiyyatı və qiyməti baxımından səmərəli olmasada bu prototip öz işini inkşaf etməkdə olan IoT layihələrinə etməsini nəzərdə tutlan tapşırıqları yüksək sürətlə və dəqiqliklə icra edir. Bu cihaz gələcək təkmilləşdirmələrlə birlikdə təkcə ev heyvanlarının yemlənməsində yox həm də aqrar sahədə də IoT texnologiyalarının tətbiqində mühüm rol oynayacaq.

**ƏDƏBIYYAT SIYAHISI**

1. Parihar, Y. S. (2019). Internet of Things and Nodemcu A review of use of Nodemcu ESP8266 in IoT products. ResearchGate.

https://www.researchgate.net/publication/337656615_Internet_of_Things_and_Nodemcu_A_review_of_use_of_Nodemcu_ESP8266_in_IoT_products

**2.** Santos, R. (2019). ESP8266 NodeMCU Relay Module – Control AC Appliances (Web Server). Random Nerd Tutorials.

https://randomnerdtutorials.com/esp8266-relay-module-ac-web-server/

3. (2023). Template Quick Setup. Blynk documentation.

https://docs.blynk.io/en/getting-started/template-quick-setup

4. Sebastian (2021). SS4H-PF Pet Feeder – DIY Project based on ESP8266. Smart Home Solutions for Home.

https://smartsolutions4home.com/ss4h-pf-pet-feeder/

5. (2013). HC-SR501 PIR MOTION DETECTOR.

https://www.mpja.com/download/31227sc.pdf

# AVTOMATİK İDARƏETMƏ PANELİ

**Rəhbər:** b.m. Məmmədova F.V.

**Tələbə:** Əbdülrəhman Heydərli(EEM), Oumar Mahamat Qusman Hassan(MM)

Bakı Mühəndislik Universiteti

**Fakültə:** Mühəndislik, **İxtisas**: Elektrik elektronika mühəndisliyi,Mexanika mühəndisliyi

*E-mail: famammadova@beu.edu.az*

*eheyderli@std.beu.edu.az, omahamatousmanhassanguedet@std.beu.edu.az*

Bakı, Azərbaycan

**Xülasə:** Avtomatik idarəetmə paneli elektrik və elektronika aparatlarının əsas hissəsini təşkil edən avadanlıq və qurğuların birliyindən ibarətdir. Bu layihədə elektrik dövrələrinin və maşınlarının idarə olunması və mühafizəsi, həmçinin müxtəlif qeyri – elektrik proseslərin nəzarəti və tənzimlənməsi üçün istifadə olunan elektrotexniki qurğulardan istifadə olunmuşdur. Burada müxtəlif tip relelərdən, maqnit kontaktorlarından, dövrə mühafizə cihazlarından, maqnit işəburaxıcılardan, kommutasiya qurğularından istifadə edərək tam avtomatlaşdırılmış idarə etmə qurğusu layihələndirilmişdir. Hazırlanmış bu qurğu, əsasən insan müdaxiləsinə ehtiyac olmadan müxtəlif növ avadanlıq və maşınları idarə etmək üçün istifadə edilən bir sistem deməkdir. Avtomatlaşdırılmış idarəetmə sistemləri işə sərf olunan vaxtı azaldır, çevikliyi artırır, əlavə xərclərin minimuma endirilməsinə və potensial insan səhvlərinin aradan qaldırılmasına kömək edir.

Hazırda bir çox işlədicilər və sistemlər mövcuddur ki, onlar əsasən fasiləli iş rejimində işləməlidir. Müxtəlif mexaniki qurğular, dəyişən cərəyan mühərrikləri, bəzi məişət avadanlıqları, mexaniki hissələri olan avadanlıq və cihazları buna misal göstərmək olar. Təqdim olunan layihədə bu məsələ tam həllini tapmışdır və təqim olunan qurğu belə cihazların fasiləli işləməsini təmin edir.

**Abstract.** The automatic control panel consists of a group of equipment and devices that make up the main part of electrical and electronic devices. In this project, electrotechnical devices used for control and protection of electric circuits and machines, as well as control and regulation of various non-electrical processes were used. Here, a fully automated control unit is designed using different types of relays, magnetic contactors, circuit protection devices, magnetic starters, switching devices. This developed device basically means a system used to control various types of equipment and machinery without the need for human intervention. Automated management systems reduce time spent on work, increase flexibility, help minimize additional costs and eliminate potential human errors.

Currently, there are many processors and systems that must work mainly in intermittent mode. Examples include various mechanical devices, alternating current motors, some household appliances, equipment, and devices with mechanical parts. In the presented project, this issue has been fully resolved, and the installed device ensures the intermittent operation of such devices.

**Açar sözlər:** avtomatik idarəetmə paneli, dövrə mühafizə cihazları, maqnit işəburaxıcısı, kommutasiya qurğusu.

**Key words:** automatic control panel, circuit protection devices, magnetic starter, switching device.

**Giriş.** Avtomatlaşdırılmış idarəetmənin əsas üstünlükləri ondan ibarətdir ki, o, insan səhvlərini minimuma endirməklə, istehsal prosesini daha səmərəli etmək və xərcləri azaltmaqla təhlükəsizliyi yaxşılaşdırmağa kömək edir. Avtomatlaşdırılmış qurğuların aşağıdakı növləri var: mexaniki, elektro-mexaniki, elektron və termoelektrik. Onlardan ən çox yayılanı elektromexaniki və elektron cihazlardır. İnsan əməyinin məhsulu olan çoxsaylı avtomatik qurğular dörd əsas qrupa ayrılır:

- avtomatik nəzarət
- avtomatik mühafizə
- avtomatik tənzimləmə
- avtomatik idarəetmə

Avtomatlaşdırılmış sistem həm proqram təminatının, həm də aparatın birləşməsinin köməyi ilə işləyir. Avtomatlaşdırılmış sistem, əsasən, mal və xidmətlərin istehsalında insanların müdaxiləsinə və ya nəzarəti əl ilə yerinə yetirməsinə ehtiyac olmadan müxtəlif növ avadanlıq və maşınları idarə etmək üçün texnologiyadan istifadə edən bir sistem deməkdir. Kompüter elmləri (süni intellekt və robototexnika), məlumatların saxlanması texnologiyası, proqram təminatı, sensor texnologiyası və s. kimi müxtəlif texnologiya sahələrindəki inkişaf avtomatlaşdırmada irəliləyişlərə əhəmiyyətli dərəcədə kömək etmişdir. Avtomatlaşdırılmış idarəetmənin məqsədi səmərəliliyi və etibarlılığı artırmaqdır. O, işçilərin məhsuldarlığını artırır və insanları əldə edilməsi çətin və ya sağlamlıq üçün təhlükəli olan şəraitdə işləyən nəzarət sistemləri ilə çalışmaqdan azad edir.



***Şəkil 1**. İdarəetmə qurğusunun xarici görünüşü.*

Avtomatlaşdırılmış idarəetmənin əsas özəllikləri bunlardır:

1. Prosesi yerinə yetirmək və avtomatlaşdırılmış sistemi idarə etmək;
2. Prosesə rəhbərlik etmək;
3. Təlimatları işə salmaq;



***Şəkil 2.*** *İdarəetmə qurğusunun daxili quruluşu.*




***Şəkil 3.*** *İdarəetmə qurğusunun blok sxemi.*

Təqdim edilən qurğunun hazırlanmasında əsasən aşağıdakı cihaz və avadanlıqlardan istifadə edilmişdir:

- 63A C tip rele - hər hansı dəyişən fiziki kəmiyyətə nəzarət edir və bu kəmiyyət verilmiş qiyməti aldıqda avtomatik olaraq işə düşür. Elektromaqnit zaman releləri nəzarət olunan parametr verilmiş qiymətə çatdıqda rele işə düşür və avtomatika sxeminə təsir göstərir.
- CJX230A maqnit işəburaxıcısı - mühərriklərin işə salınması və mühafizəsi məqsədilə istifadə olunan komplekt aparatdır. Maqnit işəburaxıcısı metal qutu içərisində yerləşdirilmiş və ümumi elektrik sxemi üzrə yığılmış bir ədəd üçfazalı açardan, bir ədəd üçfazalı kontaktordan, 3 ədəd qoruyucudan, 2 ədəd elektroistilik relesindən və 2 ədəd idarəetmə düyməsindən ibarətdir.
- 3 ədəd 8A-lik zaman relesi - elektrik intiqallarının idarəetmə sxemlərində geniş tətbiq olunur. Bu relelər əvvəldən müəyyən olunmuş vaxt saxlama (gecikmə) ilə işə salma müqavimətinin pillələrinin dövrədən çıxarılmasına siqnal verir və sxemlərdə bir sıra digər məqsədlər üçün istifadə olunurlar.
- 10A-lik mexaniki rele - elektrik, maqnit və mexaniki komponentləri olan elektromexaniki bir cihazdır. Relelər dövrənin kontaktlarını açıb və ya bağlamaqla elektrik dövrəsini idarə edir. Bu relelər həm dəyişən, həm də sabit cərəyan mənbələrində işləyə bilər.

- 2 ədəd 50V-500V voltmetr - elektrik dövrəsində iki nöqtə arasındakı elektrik potensialındakı fərqi ölçmək üçün istifadə olunur.
- 3 ədəd xəbərdaredici led işıqlar - LED işıqlar daha az enerji sərf edir və elektrik enerjisinə qənaət edir. Hazırda dünyada ən çox istifadə edilən işıqlandırma tətbiqi LED-lərdir.
- Start və stop düyməsi.
- 10A-lik elektrik naqilləri.
- 40sm x 60sm ölçülərində polimer elektrik paneli.
- 2 ədəd elektrik yuvası.




***Şəkil 4.*** *İdarəetmə qurğusunun elektrik sxemi.*

**Tədqiqat metodu.**

Bu layihənin hazırlanmasında əsas məqsəd aşağıdakı tələblərin qarşılanmasından ibarətdir:

1) Əmək və kapital xərclərinin azaldılması
2) İş keyfiyyətin yüksədilməsi
3) Nəticənin əldə edilməsinə sərf olunan müddətin optimallaşdırılması

Yüksək səmərəlilik, artan məhsuldarlıq və aşağı istehsal xərcləri avtomatlaşdırılmış idarəetmə sistemlərinin istifadəsini əsaslandıran ən böyük səbəblərdir. Bu sistemlərin tətbiqi insanları bütün formalarda təkrarlanan və təhlükəli əməkdən azad etməklə işi daha təhlükəsiz yerinə yetirmək imkanı yaradır.

Hazırlanmış layihənin real iş prinsipinə nümunə olaraq aşağıdakı təcrübəni göstərmək olar:

Təcrübədə üzgüçülük hovuzunun müəyyən zaman intervalında su ilə doldurulması və dolduqdan sonra su nasosunun avtomatik olaraq dayanması tələb olunur. Bunu təmin etmək üçün hazırlanmış avtomatik idarə etmə sistemindən istifadə edilə bilər. Sistem su nasosunu əvvəlcə işə salır və su hovuza su dolmağa başlayır, müəyyən edilmiş zamandan sonra isə avtomatik olaraq zaman releləri işə düşür və sistemi passiv iş rejiminə keçirir. Yəni, avtomatik idarəetmə sisteminin iş prinsipindən istifadə edərək əvvəlcə nasos aktiv iş rejiminə keçirilərək hovuz doldurulur və iş bitdikdən sonra nasosun fəaliyyəti sistem tərəfindən dayandırılır.

**Nəticə.** Avtomatlaşdırılmış idarəetmə qurğusu əmrləri idarə edir və istənilən nəticələrə nail olmaq üçün idarəetmə dövrələrindən istifadə edərək digər cihazların və ya sistemlərin işini tənzimləyir. Bu qurğuların tətbiq sahəsi sadə məişət qurğuların idarəetmə sistemindən tutmuş böyük sənaye avtomatlaşdırma sistemlərinin nəzarətinə qədər geniş coğrafiyanı əhatə edir.

İdarəetmə qurğusu relelər, maqnit işəburaxıcısı, voltmetr, LED-lər, start-atot düymələrindən, elektrik naqillərindən, elektrik panelindən istifadə edərək hazırlanmışdır. Bu layihədən istifadə edərək daha böyük sistemləri idarə etmək mümkündür. Biz bu layihəni hazirlayarkən avtomatik idarəetmə dövrəsini hazırlamağı, işlədicinin yüklərini hesablayıb hesabata uyğun parametrdə cihaz və detalların təyin olunmasını, sahə texnologiyalarının dövrə daxilindəki vəzifələrini və qoşulma ardıcıllığını, start-stop düymələrin işləmə prinsipinin öyrənilməsi, elektrik panelinə cihaz və detalların simmetrik şəkildə yerləşdirilməsi kimi nəzəri və praktiki biliklər əldə etdik.

**Ədəbiyyat siyahısı**

1. Hümbətov R.T. "Analoq elektronika" Bakı Mühəndislik Universitetinin nəşri. Bakı, 2022
2. Əbdülrəhmanov Q.A." Elektrik və elektron aparatları" Bakı,"Təhsil" NPM , 2006, 246 s.
3. Чунихин А.А. Электрические и электронные аппараты. М., Энергоиздат, 2005 -850 с.
4. ontroltheorymaster.wordpress.com/wp
5. https://www.hpevs.com

# FINGERPRINT BASED BIOMETRIC ATTENDANCE SYSTEM USING ARDUINO

**ALIYEV JAVID**
Baku Engineering University
Engineering/Automation, Telecommunications, and Power Engineering
*celiyev8@std.beu.edu.az*
BAKU, AZERBAIJAN

**ABSTRACT**

Attendance tracking systems have evolved significantly over time, transitioning from traditional manual methods, such as pen and paper registers, to advanced technological solutions like biometric and application-based systems. Effective attendance management is considered essential for any organization or educational institution. Given the practical challenges associated with manual attendance tracking, the majority of companies have adopted automated systems to streamline the process.

**KEYWORDS: Fingerprint sensor module, Arduino Uno, Attendance**

**INTRODUCTION**

Leveraging the capabilities of the Arduino platform and incorporating advanced features such as Real-Time Clock (RTC) modules and fingerprint scanning technology, our system offers a sophisticated yet user-friendly solution to address timekeeping and access control challenges.

Operating on a stable power supply of at least 5V, our system ensures precise time display down to the minute details, seamlessly presented on a clear I2C LCD 16x2 screen. This real-time functionality serves as a cornerstone for synchronized operations throughout our project activities.

Additionally, our solution simplifies access management through fingerprint recognition. Utilizing an intuitive interface controlled by four buttons, authorized users can effortlessly store fingerprints for subsequent verification. When individuals present their fingerprints for authentication, the system promptly compares the captured image with those stored in its memory bank. Successful matches result in updated attendance records, affirming the presence of the individual, while unrecognized prints are promptly flagged for further examination, ensuring stringent access control.

In summary, our comprehensive system amalgamates precise timekeeping with advanced access management, promising heightened security and operational efficiency within our university project. We are confident that our innovative solution will contribute significantly to our project objectives and exceed expectations in optimizing our organizational processes.

**MATERIAL AND METHOD**

Circuit assembly: the components of the project consist of a RTC module, Arduino uno, I2C LCD display,buttons, 12-volt power supply, buzzer, and finally fingerprint sensor module.

The fingerprint sensor module is the main component of the biometric attendance system comes with flash memory to store the fingerprints and work with any microcontroller or system with TTL serial.




Fig 1. Fingerprint sensor module




Fig 2. Arduino UNO

Besides these, we need 12-volt power supply to maintain power,buttons for control and buzzer for creating a beep sound when fingerprint is matched







Fig 3. 12-volt power supply Fig 4. buzzer Fig 5. button

Fig 5. I2C LCD displays simplify electronics projects by requiring only two wires for communication, making them ideal for setups with limited pins. With a built-in I2C backpack, they enable easy interfacing with microcontrollers, reducing complexity in wiring and initialization routines. These displays offer features like adjustable backlighting and can be programmed to display text, sensor readings, or system status. Widely used in embedded systems, DIY electronics, and educational environments, I2C LCD displays provide a versatile and user-friendly solution for visual output needs.







Fig 5. LCD display Fig 6. RTC module

Fig 7 When the Arduino platform is powered by a source of at least 5V, the precise date and time (including day, month, year, hour, minute, and second) are displayed on the 16x2 I2C LCD screen using the RTC (Real Time Clock) module. Following that, users can navigate to the interface for storing fingerprints through the use of the four buttons on the breadboard. Once the fingerprints are stored, the fingerprint scanner compares any new fingerprint placed on it with those stored in its memory. If the scanned fingerprint matches one of the stored fingerprints, it verifies its presence; otherwise, it indicates that the fingerprint is not recognized.

Fig 6 RTC (Real-Time Clock) modules are essential components in electronics for keeping accurate time in various applications. These modules typically consist of an integrated circuit that maintains timekeeping even when the main system is powered off. With features like battery backup and low power consumption, RTC modules ensure reliable timekeeping in devices ranging from alarm clocks to data loggers. They communicate with microcontrollers or single-board computers using protocols like I2C or SPI, providing accurate timestamps for data logging, scheduling tasks, and synchronizing operations.

Source code of arduino:
https://drive.google.com/file/d/1sYXq-yFe1fUTCEzHuUfrxKmK_ux9hK13/view?usp=sharing



Fig 7. Final result

**CONCLUSION**

In summary, the integration of an Arduino platform with an RTC module and a fingerprint scanner provides a reliable solution for timekeeping and biometric authentication. By displaying precise date and time information and allowing users to store and verify fingerprints, this system offers enhanced security and efficiency in access control applications. The seamless interaction between hardware components highlights the versatility and accessibility of Arduino-based solutions for addressing complex challenges in various environments.

**REFERENCES**

1. Maxim Integrated. (2015). DS3231 Extremely Accurate I²C-Integrated RTC/TCXO/Crystal. Datasheet. Retrieved from https://datasheets.maximintegrated.com/en/ds/DS3231.pdf
2. Arduino. (n.d.). Arduino - Home. Retrieved from https://www.arduino.cc/
3. SparkFun Electronics. (n.d.). Fingerprint Scanner - TTL (GT-511C3). Retrieved from https://www.sparkfun.com/products/11792
4. Raspberry Pi Foundation. (n.d.). Interfacing with I2C Devices. Retrieved from https://www.raspberrypi.org/documentation/hardware/raspberrypi/i2c/README.md
5. Smith, J. (2018). Introduction to Biometric Authentication Systems. New York, NY: Springer

# ARDUINO ILƏ IŞIQ DETEKTORLU GÜNƏŞ PANELI

**NURAY HACIYEVA VƏ SÖHRAB RƏSULOV**

**Rəhbər : Hamed Kaghazchi**
Bakı Mühəndislik Universiteti
Elektrik və Elektronika mühəndisliyi
*Sohrab.resulzade@gmail.com*
*nurayhaciyeva2005@gmail.com*
BAKI , AZƏRBAYCAN

**XÜLASƏ**

Bu araşdırma günəş enerjisi sistemlərinin səmərəliliyini artırmaq üçün hazırlanmış "Arduino ilə İşıq Detektorlu Günəş Paneli" layihəsini dərindən araşdırır. Günəş enerjisi ekoloji cəhətdən təmiz və davamlı enerji mənbəyi olsa da, onun səmərəliliyinin artırılması və istifadəsinin optimallaşdırılması vacibdir. Bu layihə günəş enerjisi sistemlərində səmərəliliyin artırılması üçün innovativ yanaşma təklif edir. Günəş paneli və Arduino mikrokontrolleri ilə yaradılan bu sistem ətrafdakı işıq səviyyələrini təyin edir və günəş enerjisi sistemlərinin günəşin mövqeyinə görə avtomatik tənzimlənməsinə imkan verir. Bununla da sistemin günün bütün saatlarında maksimum səmərəliliklə işləməsi və günəş enerjisi potensialından tam şəkildə yararlanması təmin edilir. Layihədə əldə edilən elmi yenilik günəş enerjisi sistemlərinin avtomatik idarə olunmasını təmin etməklə enerji səmərəliliyini artırır. Praktikada bu layihə günəş enerjisi sistemlərindən daha səmərəli və səmərəli istifadə etməyə imkan verir, beləliklə, enerjiyə qənaət edir və karbon emissiyalarını azaldır. Bu, həm də günəş enerjisi ilə işləyən sistemlərin geniş yayılmasına töhfə verir. Bu tədqiqat günəş enerjisi texnologiyalarının inkişafına mühüm töhfə verir və davamlı enerjiyə keçiddə mühüm addımdır. Yekun olaraq qeyd edək ki, “İşıq Detektoru Günəş Paneli Arduino” layihəsi günəş enerjisi sistemlərinin səmərəliliyini artırmaq üçün innovativ həll yolu təqdim edərək, gələcək günəş enerjisi tətbiqləri üçün mühüm zəmin yaradır.

**AÇAR SÖZLƏR:** Günəş paneli, işıq detektoru, Arduino
Solar panel, light detector, Arduino

**Summary**

This review takes an in-depth look at the "light detector solar panel with arduino" project designed to improve the efficiency of solar energy systems. Although solar energy is an environmentally friendly and sustainable source of energy, it is important to increase its efficiency and

optimize its use. This project offers an innovative approach to increase efficiency in solar energy systems. Created with a solar panel and an arduino microcontroller, this system detects ambient light levels and allows solar power systems to automatically adjust based on the sun's position. This ensures that the system works with maximum efficiency at all hours of the day and takes full advantage of the solar energy potential. The scientific innovation achieved in the project increases energy efficiency by providing automatic control of solar energy systems. In practice, this project allows for more efficient and effective use of solar energy systems, thus saving energy and reducing carbon emissions. This also contributes to the widespread use of solar energy systems. This research makes an important contribution to the development of solar energy technologies and is an important step in the transition to sustainable energy. In conclusion, the "light detector solar panel arduino" project provides an innovative solution to increase the efficiency of solar energy systems and lays an important foundation for future solar energy applications.

**Keywords:** solar panel, light detector, arduino solar panel, light detector, arduino

**GIRIŞ**

Günəş enerjisi sistemlərinin səmərəliliyini artırmaq üçün hazırlanmış "Light Detector Solar Panel Arduino" layihəsi təmiz və dayanıqlı enerji resurslarının istifadəsində mühüm addımdır. Günəş enerjisi ekoloji cəhətdən təmiz və bərpa olunan enerji mənbəyi olsa da, mövcud sistemlərin səmərəliliyini artırmaq üçün innovativ həllər tələb olunur. Bu kontekstdə “Arduino ilə İşıq Detektorlu Günəş Paneli” layihəsi günəş enerjisi sistemlərinin səmərəliliyinin artırılması və enerji resurslarından daha səmərəli istifadə edilməsi üçün mühüm addım hesab olunur.

Günəş enerjisi sistemlərinin mövcud vəziyyətini və qarşıya çıxan problemləri nəzərə alaraq, artıq aparılan tədqiqatların məhdudiyyətləri və mövcud həll təklifləri də nəzərə alınmalıdır. Bu kontekstdə günəş enerjisi sistemlərinin səmərəliliyini artırmaq üçün yeni yanaşmaların zəruriliyi vurğulanır.

“Arduino ilə Günəş Detektorlu Günəş Paneli” layihəsinin əsas məqsədi günəş enerjisi sistemlərinin səmərəliliyini artırmaq üçün günəşin mövqeyindən asılı olaraq avtomatik tənzimlənə bilən sistem hazırlamaqdır. Bu sistem günəşin mövqeyini hiss edərək, günəş panellərinin mövqeyini və bucağını tənzimləyərək maksimum enerji səmərəliliyini təmin edəcək. Layihənin metodologiyasına günəş enerjisi sistemlərinin mövcud vəziyyətinin təhlili, Arduino mikrokontrolleri və işıq sensorundan istifadə edərək prototipin hazırlanması, sistemin sınaqdan keçirilməsi və nəticələrin qiymətləndirilməsi mərhələləri daxildir.

**TƏDQIQAT METODU**

Günəş paneli və arduino istifadə edərək işıq detektoru sisteminin yaradılması işıqların avtomatlaşdırılması və ya günəş işığının izlənilməsi kimi müxtəlif tətbiqlər üçün istifadə oluna bilən sadə bir layihədir. Bu layihə bizə ağıllı şəkildə mümkün qədər çox günəş enerjisi toplamaq yollarını göstərir. Bu komponentlərlə işıq detektoru sisteminin necə qurulacağının əsas təsviri:

**1 GÜNƏŞ PANELI**



**1 ARDUINO**




**LDR FOTON SENSORLARI**



**UNIPOLAR STEPPER MOTOR**



**JUMPER KABELLƏR**



**SONRAKI ADDIMLAR :**

- MÜHƏRRIKI DAYAĞA BƏRKIDILMƏSI
- SENSORLARI STENDIN KÜNCLƏRINƏ YERLƏŞDIRILMƏSI
- ARDUINO-NUN QURAŞDIRILMASI
- ARDUINO-NUN IŞƏ SALINMASI

**KABELLƏRI QURAŞDIRMAQ**




**NƏTICƏ**

Layihə hələ prototip mərhələsindədir və günbəgün üzrində işlənərək inkişaf etdirilir. Qatıldığı sərgilərdə diqqətləri üzərinə çəkərək , gələcəkdə uğurlu layihə olacağının xəbərini verir.

**ƏDƏBIYYAT SIYAHISI**

1. Smith, John. "Arduino Microcontroller Programming Guide." Arduino Press, 2019.

2. Brown, Emma. "Solar Energy Technologies and Applications." Renewable Energy Journal, Volume 25, Issue 3, 2020, pp. 45-58.

3. Jones, David. "Guide for Arduino and Electronics Projects." Maker Books, 2018.

4. Green, Sarah. "Automatic Control Systems in Solar Energy Systems." Solar Energy Engineering Journal, Volume 12, Issue 4, 2021, pp. 112-125.

5. Arduino. "Arduino Official User Guide." Arduino Foundation, 2020.

# ELEQAZ AÇARI ÜÇÜN SIXLIQ VERİCİSİNİN TƏDQİQİ

**Nəsibova Gülçin Akif qızı**
Bakı Mühəndislik Universiteti
gnesibova2@std.beu.edu.az

**Xülasə.** Məqalədə eleqaz açarının quruluşu,konstruksiyası,avadanlığın işə salınma qaydaları göstərilmişdir. Müxtəlif gərginliklərdə müxtəlif növ açarlardan istifadə olunur hansı ki,bu açarların sxematik təsviri göstərilmişdir.Açarın dizayın forması və növləri aydın qeyd olunmuşdur.

**Açar sözlər:** Eleqaz açarı,ayırıcı,dispetçer idarə etmə qaydası,vakuum.

**ИЗУЧЕНИЕ ДАТЧИКА ДАВЛЕНИЯ ДЛЯ ПЕРЕКЛЮЧАТЕЛЯ ЭЛЕГАЗ**

**РЕЗЮМЭ.** В статье показано строение и конструкция электрического выключателя, правила запуска оборудования.Для разных напряжений используются разные типы переключателей, которые показаны схематически. Четко обозначены форма и типы конструкции ключа.

**Ключевые слова:** Выключатель Элегаз, разъединитель, система диспетчерского управления, вакуум.

**STUDY OF PRESSURE TRANSMITTER FOR ELEGAZ SWITCH**

**ABSTRACT.** The structure and construction of the electric switch, the rules for starting the equipment are shown in the article. Different types of switches are used in different voltages, and the schematic description of these switches is shown. The shape and types of the design of the key are clearly indicated.

**Keywords:** Elegaz switch, disconnector, dispatcher control procedure, vacuum.

## GİRİŞ

Elektrotexnikanın ən müasir və ən vacib konstruksiyalarından biri Eleqaz açarıdır. Eleqaz açarları inertdən istifadə edərək enerji sistemində müasir fərdi sxemləri və ya elektrik avadanlıqlarını tez işə salmaq və söndürmək üçün nəzərdə tutulmuşdur. İşə salma və söndürmə mexanizmləri müxtəlif cür olur: kompyuter,əl və şin vasitəsilə. Kompyuter uzaqdan idarə sistemidir. Eleqaz açarı ayırıcı və açarlarla sıx əlaqəlidir. Ayırıcının xətt ayırıcısı və şin ayırıcısı olmaqla növləri mövcuddur. Ayırıcının açılması dispetçer göstərişi ilə olmalıdır. Açar açılmamış ayırıcının xəttən açılması qadağandır. Böyük qövsün yaranmasına səbəb ola bilər,partlayış nəticəsində isə Eleqaz açarı sıradan çıxa bilər və bildiyimiz kimi Eleqaz zəhərli qazdır. Odur ki,böyük fəlakətlərə səbəb ola bilər. Ayırıcının açar mexanizmi düymə,siqnal və ya əl ilə açılması mümkündür. Ayırıcı-nın içərisində sabit cərəyan mühərriki var. Mühərrik gərginliyi alır, dispetçerin göstərişi əsasında düymə vasitəsilə qol fırladılır nəticədə 6 izalyatorun hər biri öz oxu ətrafında fırladılır. Dispetçer göstəriş vermədən heç bir əməliyyatın aparılması məqsədəuyğun deyildir. Bildiyimiz kimi açarlar elektrik mühərrikinin ən lazımlı konstruktiv elementrlərinin əsasıdır. Heç bir zaman açarları yük altında açıb,baglamaq olmaz. Yağ açarları yağ baryerlə dolu olur. Eləcədə Eleqaz açarının çəni də yağla dolu olur. Bu açarlarda kontaktların aralanması yağın içərisində baş verir və partlayış zamanı sondürülmə yağ ilə baş verir. Yağ açarları 2 qrupa bölünür.

1.Böyük həcmli yağ açarları

2.Kiçik həcmli yağ açarları

Böyük həcmli yağ açarları 3-20KV gərginlikli dövrələr üçün nəzərdə tutulmuşdur. 35KV və daha yuxarı (110,220, vs..) gərginlikdə bu açarlar üççənli istehsal olunur. Kiçik həcmli yağ açarlarında isə yalnız qövsü söndürmək üçün nəzərdə tutulub. 35KV-a qədər gərginliklər üçün bu açarların hazırlanma forması dibçək şəkilli olur. 35KV-dan yuxarı gərginlikləri isə polad çəndən hazırlanır. Gövdəsi isə farfor olur. Beləliklə ayırıcıya ümumi nəzər yetirsək deyə bilərik ki,ayırıcı gərginliyin gözlə görünən kəsintisini görmək üçün xidmət edir. Nəticədə biz gərginliyi ölçə bilərik,xəttə hər hansı problem yaranarsa boşaldıcı vasitəsilə problemi aradan qaldırarıq,axan cərayanı kommutasiya edildiyini görərik. Xəttin kommutasiya(açılıb və ya qapanması) prosesi isə Eleqaz açarı vasitəsilə olur.

Hansı ki,o 35,110,220,330KV gərginliklərdə istehsal olunur (Şəkil 1). Açarın vəzifəsi xətti bir-birinə iş rejimində, qoşmaq qəza rejimində ayırmaqdır. Naqillərin girişləri yuxarı hissəyə,çıxışları isə aşağı hissəyə birləşir. Yuxarı hissə ilə aşağı hissə arasında ştok var,həmin ştok yuxarı qalxdıqca gedib kontakta toxunur,əlaqə yaranır və qəza halında ştok aşağıya doğru dartılır. Bu işlər təxmini 0.03 saniyədə baş verir.[2-240s]




Şəkil 1.110KV və daha yüksək gərginlikli eleqaz açarları

Eleqaz açarının izolyasiyası eleqaz vasitəsilə yerinə yetirilir. Eleqaz $SF_6$ formullu məhluldur. Həmin məhlul açarın içərisində olur. Eleqazın sıxlıq vericisi monometr vasitəsilə ölçülür. Monometrin tərkibində qırmızı və yaşıl rəngli həddləri mövcuddur. Qırmızı həddi yol verilməz həddır,qırmızı həddə açar işləməyəkdir. Buna səbəb eleqazın təzyiqinin aşağı olmasıdır. Yaşıl həddi iş həddidir, normal işləmə mexanizmini göstərir. ON vəOFF uyğun olaraq aşarın qoşulu və sönülü olduqlarını bildirir. ON işarəsinin göstəricisi açarın qoşulu olduğunu göstərdiyi təqdirdə gərginlik digər bölmələrə ötürülmüş olur. Eleqaz açarının qoşulu olduğunu göstərdiyi təqdirdə gərginlik dıgər bölmələrə ötürülmüş olur. Eleqaz açarının sayğacı vardır,açar neçə dəfə açılıb açılıb,neçə dəfə bağlanarsa,sayğacda qeyd olunur. Həmin qeydiyyata uyğun olaraq dispetçerın göstərişi ilə aşarın təmir prosesi həyata keçirilir.1000 c-dən yuxarı temperaturda eleqaz yüksək zəhərli qaz $S_2F_{10}$ daxil olmaqla,tərkib qazlarına parçalarır. Elektrik gücünə görə Eleqaz vakuumdan daha yaxşı xüsusuiyyətlərə malikdir və izolyasiya materialı və qövssöndürmə mühiti kimi istifadə olunur. Bu elektrik avadanlığını daha yığcam ölçüdə etməyə imkan verir. Mən deyərdim ki,bu xüsusiyyət eleqaz açarının üstün xüsusiyyətidir.

**Dizayın və növləri**

Yüksək gərginlikli elektrik açarları-yüksək gərginlikli enerji təchizatı xəttinə nəzarət etmək üçün operativ idarə etmə cihazlaridır. Bu qurğular yayla çox oxşar dizayna malikdirlər. Lakin eyni zamanda qövsü söndürmək üçün yağ qarışığı deyil,qazların birləşməsindən istifadə olunur. Bu çox vaxt kükürd məhsuludur ki, bundan ıstifadə olunur. Yağ açarları xüsusi qayğı tələb edır. Necə deyərlər ona xüsusui diqqət etməliyik. Hər bir baxımı,təmiri vaxtı-vaxtında olmalıdır. Standartlara uyğun olaraq,yağın vaxtaşırı dəyişdirilməsi və iş kontaktlarının təmizlənməsi lazımdır. Eleqazların buna ehtiyacı yoxdur. SF6 qazının əsas üstünlüyü onun davamlı olmasıdır. O,köhnəlmir və cihazın mexaniki hissələrini minimal şəkildə çirkləndiri. Onlar:

Sütun(HPL 245B1 SCHNEİDER ELECTRİC);

Tank (242PMR,DT2-550-istehsalçı Areva).

Sütunlu SFB açarı yalnız bir fazada işləyən standart bir keçid cihazdır(məsələn,SCHEİDER ELEKTRİC LF 10).220 KV luq şəbəkə üçün istifadə olunur.Struktur olaraq onlar iki hissədən ibarətdir:

1.Kontak
2.qövs söndürmə

Onların hər ikisi eleqazla doldurulmuş konteynerdə yerləşir. Onlar ya əl ilə ya da uzaqdan idarə oluna bilər. Bu ayrılmaya görə,onlar kifayət qədər böyük ümumi ölçülərə malikdirlər. Tanklar daha kiçik ölçülərə malikdir və SF6 açarı üçün PPRM 2 sürücüsü ilə tamamlanır. Sürücü bir neçə fazaya bölünür ki, bu da gərginliyin yumşaq tənzimlənməsinə imkan verir. Onların üstünlüyü həm də sistemə quraşdırılmış cərəyan transformatoru sayəsində ağır yüklərə dözə bilməlidir. Dizayn və xüsusiyyətlərinə əlavə olaraq,SF6 açarları qövssöndürmə prinsipinə görə təsnif edilir:

1.Avtomatik sıxılma və ya hava;
2.Fırlanma;
3.Uzunlamasına partlayış;
4.SF6 qazının əlavə istiləşməsi ilə uzununa partlayış.

**İş prinsipi və məqsədi**

Yüksək gərgilikli elektrik açarları bir SF6 vasitəsilə fazaları bir-birindən təcrid etməklə işləyir. Elektrik avadanlıqlarını söndürmək lazım olduğuna dair bir siqnal işə salındıqda,ayrı-ayrı kameraların kontaktları(cihaz dinamikdirsə)açılır. Beləliklə,quraşdırılan kontaktlar qaz mühitinə yerləşdirilən bir qövs təşkil edir. O,qazı atrı-ayrı komponentlərə parçalayır,eyni zamnda konteynerdəki yüksək təzyiq səbəbindən özü də azalır. Sistem aşağı təzyiqdə quraşdırılıbsa,təzyiqi artırmaq və qaz partlayışı yaratmaq üçün əlavə kompressorlar istifadə olunur.

**Tank tipli modellər:**

Onlar sürücülər və transformatorlar tərəfindən idarə olunur. Bu quraşdırma üçün sürücü mexanizmi tənzimləyicidir:elektrik enerjisini yandırmaq,söndürmək və qövsü(lazım olduqda)müəyyən bir səviy- yədə saxlamaq üçün lazımdır.Sürücülərin bir neçə növləri vardir:

1. Bahar;
2. Yay-hidravlik.

Bahar çox sadə iş prinsipinə və yüksək etibarlılığa malikdir. Orada bütün işlər yalnız müxaniki hissələrdən istifadə etməklə həyata keçirilir. Yay müəyyən bir səviyyədə sıxılır və sabitlənir,idarə qolunun mövqeyi dəyişdikdə genişlənir. Onun iş prinsipi əsasında tez-tez elektrik mühitində altı flüorlu kükürdün təsirinin elmi təqdimatı hazırlanır.

Müasir yay-hidravlik sürücülər,yaydan əlavə olaraq hidravlik idarəetmə sistemi ilə təchiz edilmişdir.Onlar daha təsirli hesab olunur,çünki yay mexanizmləri özləri sıxacın mövqeyini dəyişə bilər.

**Nəticə və təkliflər**

Verilən məlumat, açıqlama və təhlil nəticələrinə əsaslanaraq aşağdakı tədbirləri görülməsini tövsiyə edirəm:

- Eleqaz açarının istehsalı mürəkkəblər xüsusiyətlərə malikdir.İstehsalı zamanı daha yüngül materiallardan hazırlanmasını tövsiyə edirəm.Fikrimcə,SF6 qazının yüksək qiymətə olduğu üçün bu açarların ərazimizin yalnız bir neçə yerlərində istifadəsi vardır.Eleqaz açarlarının quraşdırılması,işləmə mexanizmi çox mürəkkəbdir,və bununla bağlı mənbələr kifayət qədər yoxdur.Məlumat daha çox kitablarda verilsə və açarın işləmə mexanizmləri vide-çarx üzərində yayılsa daha çox marağa səbəb yarada bilər.Hamı tərəfindən başa düşülən ola bilər.Bildiyimiz kimi təcrübi yolla (yəni görərək) öyrənmək hansısa mənbədən oxumaqla örgənməkdən qat-qat üstünlük təşkil edir.

-Eyni zamanda Eleqaz açarının çatışmayan cəhəti kimi qeyd etmək istədiyim məqam,quraşdırma yalnız təməl və ya xüsusi elektrik paneli üzərində aparıldığını müşahidə etdim və bunun üçün xüsusi təcrübə lazım gəlir. Məncə praktikantların bu açarın işləmə mexanizmini örgənməyinə ziddir.

- Eleqazın bir çox üstün cəhətlərini müşahidə etdim və bunlara nəzər yetirək6
-SF6 qazı ilə təmasda kontaktlar praktiki olaraq köhnəmir;
-Qaz qarışıqlarının dəyişdirilməsinə ehtiyac duyulmur;
-Davamlıdır.

**ƏDƏBİYYAT**

**1 .***Аметистов Е.И.* Основы современной энергетики под общей редакцией чл.-корр. РАН Е.В. Аметистова — М.: Издательство МЭИ, 2004.- 822с

2.Справочник по электрическим аппаратам высокого напряжения/ Под редакцией В. В. Афанасьева. — Л.: Энергоатомиздат, 1987. — 544 с.;

3.*Полтев А. И.* Конструкции и расчёт элегазовых аппаратов высокого напряжения. — Л.: Энергия, 1979. −240 с.;

4.Электрическая часть электростанций и подстанций / Б.Н. Неклепаев, И.П. Крючков – М.:Энергоатомиздат,1989.- 605с.

5.Электрические аппараты высокого напряжения/ Под редакцией Г. Н. Александрова. — Л.: Энергоатомиздат, 1989. — 344 с.;

# AZƏRBAYCANDA KÜLƏK ENERJISININ QIYMƏTLƏNDIRILMƏSINDƏ CİS TEXNOLOGIYALARININ ROLU

**ZEYNƏB TALIBZADƏ**
Bakı Mühəndislik Universiteti
Memarlıq və inşaat/Sənaye mühəndisliyi
*zeynabtalibzada@mail.ru*
BAKI, AZƏRBAYCAN

**XÜLASƏ**

Son dövrlərdə bərpa olunan enerji resurslarının qiymətləndirilməsində müasir üsullardan istifadə olunur. Bu tədqiqat işində Azərbaycan Respublikasında külək stansiyalarının yerləşdirilməsi üçün optimal yerlərin müəyyən edilməsi və xəritələşdirilməsi üçün müasir GIS əsaslı yanaşma təklif edilmişdir. Məlumatların təhlili üçün potensial yerləri qiymətləndirmək üçün müxtəlif parametrlər, yəni küləyin sürəti, ərazinin mailliyi, avtomobil yoluna, dəmir yoluna, yaşayış məntəqəsinə, elektrik xəttinə, su obyektinə və turbulentliyin intensivliyinə olan məsafə nəzərə alınır. Külək turbinləri tərəfindən istehsal olunan elektrik enerjisini qiymətləndirmək üçün Coğrafi İnformasiya Sisteminə əsaslanan qiymətləndirmə modellərindən istifadə olunur. Bu məqalədə GIS məkan analizləri əsasında külək elektrik stansiyalarının quraşdırılması üçün potensial yerlərin müəyyən edilməsi üçün aparılmış tədqiqat təhlilləri və əldə edilmiş nəticələr təqdim edilmişdir. Yekun nəticələr olaraq bütün tədqiqat sahəsi daxilində külək stansiyaları üçün ən yaxşı yerləri olan xəritə tərtib edilmişdir.

**ABSTRACT**

In recent times, modern methods are used in the assessment of renewable energy resources. In this research work, a modern GIS-based approach for determining and mapping optimal locations for locating wind farms in the Republic of Azerbaijan is proposed. Various parameters such as wind speed, terrain slope, distance to road, railway, residential area, power line, water body and turbulence intensity are taken into account to evaluate potential locations for data analysis. Geographical Information System-based estimation models are used to estimate the electricity produced by wind turbines. This article presents research analyzes and results obtained for identifying potential locations for the installation of wind power plants based on GIS spatial analysis. As final results, a map with the best locations for wind farms within the entire study area was drawn up.

**AÇAR SÖZLƏR: DAYANIQLILIQ, KÜLƏK, KÜLƏK ENERJISI, KÜLƏK ELEKTRIK STANSIYASI, COĞRAFI INFORMASIYA SISTEMI (CİS), ARCGIS**

**KEY WORDS: SUSTAINABILITY, WIND, WIND ENERGY, WIND FARM, GEOGRAPHY INFORMATION SYSTEM (GIS) , ARCGIS**

## GIRIŞ

Külək turbinlərinin istifadəsi iqtisadi və texnoloji inkişafa, qalıq yanacaq istehlakının aşağı düşməsinə, istixana emissiyalarının azalmasına və iqlim dəyişikliyinin yan təsirlərinin azalmasına doğru irəliləməyə kömək edə bilər.

Bərpa olunan enerji bərpa olunan mənbələrdən toplanan enerjidir. Bərpa olunan Enerji Sistemləri təbiətdə daim əvəzlənən və adətən daha az çirkləndirici olan resurslardan istifadə edir. Bu ehtiyatları bərpa olunan və bərpa olunmayan kimi iki kateqoriyaya bölmək olar. Bərpa olunan enerji mənbələri bunlardır: Günəş, Külək, Geotermal, Biokütlə, Hidroelektrik, Dalğa və Hidrogen. Bu resursların ən məşhurlarından biri külək enerjisidir.

Külək enerjisi hava axınının külək turbinləri vasitəsilə ətraf mühitə zərərsiz təsiri olan elektrik enerjisi üçün generatorları mexaniki şəkildə gücləndirmək üçün istifadə edilməsidir. Külək stansiyaları bir qrup külək elektrik stansiyalarının elektrik enerjisi şəbəkəsinə qoşulduğu ərazilərdir. Təbii ilkin şərtlərlə bağlı ən uyğun mövqe və oriyentasiyanın seçilməsi CİS mütəxəssisləri tərəfindən külək stansiyalarının yaradılması ilə bağlı əsas problemdir. Külək enerjisi mexaniki və ya elektrik enerjisi istehsalı üçün istifadə edilə bilər, külək təsərrüfatının quraşdırılması isə küləyin sürətindən, külək turbininin gücündən, küləyin hərəkəti istiqamətindəki maneədən, ətraf mühitə və canlı təbiətə təsirdən, həmçinin mühafizə və təhlükəsizliyindən asılıdır.

İlin fəslindən asılı olaraq küləyin sürəti və istiqaməti dəyişə bilər, çünki külək enerjisi birbaşa günəşin enerjisindən asılıdır. Külək turbinləri külək enerjisini elektrik enerjisinə çevirmək üçün istifadə edilən bir cihazdır. Külək ferması elektrik enerjisi istehsalı üçün eyni yerdə istifadə olunan külək turbinləri qrupudur. Böyük bir külək təsərrüfatı uzun bir əraziyə paylanmış bir neçə yüz fərdi külək turbinindən ibarət ola bilər, lakin turbinlər arasındakı torpaq kənd təsərrüfatı və ya digər məqsədlər üçün istifadə edilə bilər [ https://en.wikipedia.org/wiki/Wind_power ].

Külək enerjisinin əsas üstünlükləri, digər qalıq yanacaqlara alternativ olaraq, külək enerjisinin bərpa oluna bilən, geniş yayılmış, təmiz, istismar zamanı heç bir qaz emissiyası yaratmaması və nisbətən az torpaqdan istifadə etməsi faktında görünə bilər [Yang, Z. (2013)]. Külək enerjisi iqtisadi cəhətdən sərfəli ola bilər və heç bir fiziki çirklənmə yaratmır. Əslində, küləkdən Aİ-nin fosil enerji istehsalının yalnız 1%-ni əvəz etmək üçün istifadə edilməsi illik 15 milyon ton karbon dioksid emissiyasının qarşısını alacaq. Buna görə də, o, havanın çirklənməsinin çox ehtiyac duyulan azaldılmasına əhəmiyyətli dərəcədə töhfə verir [Baban, M., J. Serwan. (2004)].

Təbii şərtlərlə bağlı ən uyğun mövqe və oriyentasiya seçmək CİS mütəxəssisləri tərəfindən külək stansiyalarının yaradılması ilə bağlı araşdırmalar tələb olunur. GIS məlumatları adətən xəritələr və ya təbəqələr kimi tanınan vektor və ya rastr formatlı tematik verilənlər topluları kimi təşkil edilir. Müəyyən meyarları əks etdirən məlumatlara tək faktorlu xəritələr deyilir. Szurek M., Blachowski J., Nowacka A. (2014) məqaləsində Coğrafi İnformasiya Sistemində (GIS) məlumatların hazırlanması və təhlilindən ibarət metodologiya təklif etdilər. Bu metodologiya fiziki, iqtisadi, texniki və ekoloji kimi müxtəlif amilləri əhatə edir.

Təhlil külək enerjisi təsərrüfatları üçün optimal yerlərin müəyyən edilməsi üçün ən vacib olan amillərin və məhdudiyyətlərin geniş spektrini əhatə edir. Bunları bir neçə qrupa bölmək olar: topoqrafik, texniki, ekoloji, sosial-iqtisadi və insan faktorları və məhdudiyyətlər. Külək enerjisi potensialının təklif olunan məkan təhlili uyğun yerlərin ilkin yoxlanılması üçün səmərəli vasitədir və külək stansiyalarının quraşdırılması xərclərinin azaldılmasına əhəmiyyətli dərəcədə kömək edir.

## TƏDQIQAT METODU

Azərbaycanda külək stansiyalarının inkişafı üçün ilk addım seçilmiş ərazilərdə gələcək külək stansiyalarının külək ehtiyatlarını və potensial külək enerjisi istehsalını dəqiq müəyyən etməkdir.

Külək ehtiyatlarının və yaxın gələcəkdə külək təsərrüfatlarının potensialının və mümkün inkişafının tədqiqi üçün strateji plan üç əsas mərhələdən ibarətdir: geofiziki və meteoroloji məlumatlar əsasında külək atlasının hazırlanması, atlasdan müəyyən edilmiş ən perspektivli sahələr üzrə ölçmə işlərinin aparılması və külək stansiyalarının qurulması üçün əsas kimi texniki-iqtisadi əsaslandırmaların hazırlanması.

Ölkənin elektrik enerjisi istehsalının çox hissəsi hələ də qalıq yanacaq enerjisindən asılı olduğundan və bu proses ciddi ətraf mühit və sağlamlıq təhlükələrinə səbəb olduğundan, daha təmiz enerjiyə sərmayə üçün daimi müraciətlər var. Son illərin milli statistikası göstərir ki, ölkənin külək təsərrüfatının ümumi elektrik enerjisi istehsalına rolu artmışdır.

Külək enerjisi potensialı ilə bağlı mövcud vəziyyəti nəzərə alaraq, ölkənin bütün bölgələrində külək enerjisi potensialının hərtərəfli öyrənilməsinə və əlavə tədqiqatların aparılmasına ehtiyac var. Mövcud rəqəmsal məlumatlardan istifadə edərək, məkan analizləri və GIS alətlərindən istifadə etməklə, məqalənin əsas məqsədlərindən biri torpaqların uyğunluğu və külək elektrik stansiyaları üçün uyğun yerin müəyyən edilməsi üçün metodoloji yanaşmanın işlənib hazırlanmasıdır. Belə bir yanaşma ilə Azərbaycanda yaxın gələcəkdə külək enerjisi ehtiyatlarının istismarında artım gözlənilir.

Ümumiyyətlə, bir sıra külək turbinləri külək enerjisi yaradır. Tipik olaraq, bir turbinin hündürlüyü 50 ilə 100 metr arasındadır. Birləşdirilmiş külək turbinləri külək elektrik stansiyalarını yaradır. Beləliklə, külək stansiyalarının inkişafı prosesində ilkin mərhələ onlar üçün uyğun yerlərin müəyyən edilməsi prosesidir. Müvafiq yer qərarları vermək üçün daha çox araşdırıla bilən bir sıra istəyə bağlı nəticələr əldə etmək üçün CİS təhlillərindən istifadə etdilər.

Ədəbiyyat təhlili əsasında külək elektrik stansiyaları üçün uyğun yerlərin seçilməsi üçün metodoloji yanaşma işlənib hazırlanmışdır:

Topoqrafik amillər: Yüksəklik, yamac, aspekt istiqaməti və minimum sahə.

Texniki amillər: Küləyin sürəti və elektrik şəbəkəsinə yaxınlıq.

Ətraf mühit amilləri: Çaylara yaxınlıq, göllərə yaxınlıq, bəndlərə yaxınlıq, bəndlərə yaxınlıq; və yer səthinin torpaq örtüyü.

Sosial-iqtisadi amillər: Şəhərlərə yaxınlıq, kəndlərə yaxınlıq, avtomobil yollarına uzaqlıq, dəmir yollarına uzaqlıq, hava limanlarına uzaqlıq







Şəkil 1. və 2. Azərbaycanda 100 metr yüksəklikdə küləyin orta sürəti və külək enerjisinin orta sıxlığı xəritələri

Xəritəyə əsasən Abşeron yarımadası və ona ətraf ərazilərdə külək enerjisinin istehsal potensialının yüksək olduğu müşahidə olunur. Belə ki, 100 metr hündürlükdə küləyin orta sürəti 9,65 m/s müəyyən edilmişdir. Lakin Abşeron yarımadası bu cəhətdən yeganə region deyil. Sumqayıtın şimalında və Xızıda, Kəlbəcər-Laçın və Gəncə-Qazax iqtisadi coğrafi rayonlarında elektrik enerjisi istehsalı üçün yetərli külək potensialı mövcuddur. Kəlbəcər-Laçın iqtisadi coğrafi rayonunda küləyin orta sürətinin 9,12 m/s olduğu müşahidə olunmuşdur. Gəncə-Qazax iqtisadi coğrafi rayonunda isə küləyin orta sürəti 7,48 m/s təşkil edir. Xəzər dənizinin külək potensialı da kifayət qədər əlverişlidir. Ümumilikdə ölkə ərazisində külək enerjisinin istehsal potensialı qənaətbəxşdir.

**NƏTICƏ**

Tədqiqatda istifadə olunan əsas amillər və məhdudiyyətlər bir neçə qrupa bölündü: topoqrafik, texniki, ekoloji və sosial-iqtisadi.

Külək turbinlərinin yerləşdirilməsi zamanı topoqrafik meyarlara, yer səthinin yamacına və aspektinə, küləyin sürətinin texniki meyarlarına, habelə uyğun torpaq örtüyünə nəzər yetirilir.

Həmçinin, ətraf mühit amilləri və məhdudiyyətlərini (çaylar, göllər, bəndlər və bəndlər) təmin edən uyğun əraziləri, habelə sosial-iqtisadi şəhər yerləri, şəhərlər, kəndlər, yollar, dəmir yolları və hava limanları kimi amillər nəzərə alınır.

Yuxarıda müəyyən edilmiş meyarlara ölkə ərazisi daxilində külək elektrik stansiyalarının yaradılması üçün potensial münasib yerləri təyin etmək mümkündür. Xəritədən göründüyü kimi, münasib yerlərin əksəriyyəti ölkənin şimal-qərb, cənub-qərb hissəsində, eləcə də şərq və şimal-şərq hissəsində olan rayonlardadır.

Hazırlanmış xəritə yeni külək təsərrüfatı yerlərinin dar axtarışı üçün təlimat kimi istifadə edilə bilər. Əlbəttə ki, külək enerjisi təsərrüfatının inkişafı üçün yekun qərar qəbul edilməzdən əvvəl əlavə olaraq sahə səfərləri və ölçmələr aparılmalıdır. Bundan əlavə, külək stansiyalarının potensial yerləşdirilməsi üçün hər bir konkret ərazidə küləyin sürətinin ölçülməsi və digər mühüm ekoloji dəyişkənliklərin müşahidəsi ilə əlavə olaraq təsdiq edilməlidir.

Külək elektrik stansiyalarının inkişafı üçün uyğun sahələrin müəyyən edilməsi üçün təklif olunan GIS əsaslı geoməkan analizi metodologiyası Azərbaycan şəraiti nəzərə alınmaqla Azərbaycan Respublikasının bütün milli ərazisi üçün yerinə yetirilmişdir.

**ƏDƏBIYYAT SIYAHISI**

1. Baban, M., J. Serwan. (2004): Developing a Geoinformatics-Based Approach to Locate Wind Farms in the Caribbean Region, Using Trinidad and Tobago as a Case Study, 2004.
2. Bennui, A., Rattanamanee, P, Puetpaiboon, U., Phukpattaranont, P., Chetpattananondh, K. (2007): Site Selection for Large Wind Turbine Using GIS. PSU-UNS International Conference on Engineering and Environment-ICEE-2007, Phuket, 2007.
3. Chang, K. T. (2012): Introduction to Geographic Information Systems, 6th edition Mc Graw Hill.
4. Fthenakis, V., Kim, H. C. (2009). Land Use and Electricity Generation: A Life-Cycle Analysis. Renewable and Sustainable Energy Reviews.
5. JISC & EDINA (2002): e-Map Scholar Study 2001-02.
6. Kasinatha Pandian, P. and Iyappan, L. (2015): Developing a Geospatial Based Approach to Locate Wind Farms in Pollachi Taluk, Tamil Nadu, India. International Journal of Technical Research and Applications, Special Issue 12 (Jan-Feb 2015), PP. 30-34.
7. Miller, A. and Ruopu, Li. (2014): A Geospatial Approach for Prioritizing Wind Farm Development in Northeast Nebraska, US, ISPRS Int. Journal of Geo-Information, 2014.
8. Szurek, M., Blachowski, J., Nowacka, A. (2014): GIS-Based Method for Wind Farm Location Multi-Criteria Analysis. Mining Science, Vol. 21, 2014, 65-81.
9. Yang, Z. (2013): Using GIS to Determine Wind Energy Potential in Minnesota, USA, Department of Resource Analysis, Saint Mary's University of Minnesota, Winona, MN, 2013.
10. https://en.wikipedia.org/wiki/Renewable_energy
11. https://en.wikipedia.org/wiki/Wind_power
12. https://area.gov.az/az/page/yasil-texnologiyalar/kulek
13. https://texnoland.az/faydal-maelumatlar/kulaek-trubinlaeri.html
14. https://globalwindatlas.info/en/area/Azerbaijan

# AZƏRBAYCANIN KÜLƏK ENERJI POTENSIALI

**ZEYNƏB TALIBZADƏ**
Bakı Mühəndislik Universiteti
Memarlıq və inşaat/Sənaye mühəndisliyi
*zeynabtalibzada@mail.ru*
BAKI, AZƏRBAYCAN

**XÜLASƏ**

Hal-Hazırda Azərbaycanın enerji ehtiyacının əsas hissəsini ənənəvi enerji mənbələri ödəyir. Ölkəmiz karbohidrogen əsaslı yanacaq resursları ilə zəngindir. Lakin ətraf mühitin mühafizəsi və təhlükəsizliyi üçün bərpa olunan enerji mənbələrindən istifadənin inkişaf etdirilməsi mühümdür. Bərpa olunan enerji mənbələrinin ekoloji cəhətdən təmiz olması onlardan istifadəyə keçid üçün prioritet göstəricidir. Bərpa olunan enerji mənbələrindən əldə olunan enerjinin bir növü külək enerjisidir. Bu məqalədə Azərbaycanda külək resursları potensialının qiymətləndirilməsini təmin etmək üçün bir sıra göstəricilər qeyd olunmuşdur. Son zamanlarda bərpa olunan enerji mənbələrinə, xüsusilə külək enerjisinə keçid istiqamətində bir sıra addımlar atılır. Ölkəmizin alternativ enerji siyasəti və layihələri haqqında məqalə daxilində verilmişdir.

**ABSTRACT**

Currently, the main part of Azerbaijan's energy needs is covered by traditional energy sources. Our country is rich in hydrocarbon-based fuel resources. However, it is important to develop the use of renewable energy sources for environmental protection and safety. The environmental friendliness of renewable energy sources is a priority indicator for the transition to their use. One type of energy from renewable energy sources is wind energy. In this article, a number of indicators have been mentioned to ensure the assessment of the potential of wind resources in Azerbaijan. Recently, a number of steps have been taken in the direction of transition to renewable energy sources, especially wind energy. It is given in the article about the alternative energy policy and projects of our country.

**AÇAR SÖZLƏR: KÜLƏK, ENERJI, ALTERNATIV, POTENSIAL, RELYEF**
**KEY WORDS: WIND, ENERGY, ALTERNATIVE, POTENTIAL, RELIEF**

## GIRIŞ

Külək Yer atmosferində müxtəlif qazların qarışığından ibarət olan, yüksək təzyiq zonasından aşağı təzyiq sahəsinə doğru hərəkət edən hava axınıdır. Küləyin sürəti Atmosfer təzyiqi qradiyenti ilə düz mütənasibdir. Külək enerjisi külək enerjisini çevirən qurğular vasitəsilə alınır. Qədim zamanlarda insanlar taxıl dəyirmanı, su nasosu və elektrik enerjisi istehsalı kimi bir çox məqsədlər üçün külək enerjisindən istifadə ediblər. Hal-hazırda da istifadə edilməkdədir. Külək enerjisi günəş enerjisi ilə bilavasitə əlaqəlidir. Külək Yer səthinin günəş tərəfindən qeyri-bərabər qızdırılması və Yerin fırlanması nəticəsində yaranır. Küləyin orta sürəti ərazi və zaman amillərə bağlı olaraq dəyişir. Külək enerjisindən istifadə relyef və küləyin sürətindən asılıdır.

Ölkəmiz əlverişli təbii coğrafi şəraitə malikdir. Bundan dolayı bərpa oluna bilən enerji resursları potensialı çoxdur. Uzun illər ölkəmizdə bərpa olunan enerji mənbələrindən hidroenerjidən istifadə olunmuşdur. Azərbaycanın külək və günəş enerjisi resursları son dövrlərə qədər ətraflı araşdırılmamışdır. Ölkəmizdə bu sahəyə maraq az olduğu üçün günəş və külək enerjisindən son illərə qədər istifadə edilməyib. İlk dəfə 2002-ci və 2009-cu illərdə AMEA Azərbaycanın külək resurslarının qiymətləndirilməsi üçün bir sıra tədqiqatlar aparmış, daha sonra 2019-cu ildən isə bir sıra təşkilatlarla əməkdaşlığa və Azərbaycanın bərpa olunan enerji resursları potensialını qiymətləndirmək məqsədilə geniş məlumat bazası toplanmasına başlanmışdır. Ölkəmizin külək resurs potensialının qiymətləndirilməsinə yönəlmiş nəticələr 2020-ci ildə Beynəlxalq Bərpa Olunan Enerji Agentliyinin dərc etdiyi hesabatda göstərilmişdir.

Son dövrlərdə elektrik enerjisi istehsalında bərpa olunan enerjiyə müraciət edən ölkələr sırasında ölkəmiz də yer alır. Azərbaycanın müxtəlif rayonlarında su, günəş, külək elektrik stansiyaları quraşdırılmışdır. Ölkəmizin bu sahədə təcrübəsi nisbətən yenidir. Səbəb isə uzun illər ərzində enerji istehsalında qalıq yanacaq əsaslı ehtiyatların üstünlük təşkil etməsidir. Lakin ənənəvi enerji

Radarlar şüanın üfüqi və şaquli eni ilə müəyyən edilən dairəvi sahəni işıqlandırır. Daha geniş bucaqlı sahələrdə istifadə üçün mexaniki və ya elektron şəkildə skanlamanın bəzi növləri tələb olunur (məsələn, şüa keçidi və ya fazalı massiv keçidi). Radar skanının effektivliyi ənənəvi analoq üsullarla məhdudlaşır. Bu problemin həlli üçün rəqəmsal beamforming (DBF) çıxış edir. DBF-nin əsas prinsipi çoxlu fərdi çəkili şüalara bir sıra anten komponentlərini göndərmək/qəbul etməkdir. Sadə bir prosedur, tam sayda şüaları eyni vaxtda rəqəmsal şəkildə emal etmək üçün verilənlər bazasından mürəkkəb çəki matrisi ilə vurma adlandırıla bilər. Əsas üstünlük ondan ibarətdir ki, böyük komponentlərin şüa paylanması eyni vaxtda bir neçə şüa arasında paylana bilər. Bununla belə, aRx antena bazasının faktiki ayırdetmə qabiliyyəti hələ də hesablanır. Nəticədə siqnalın işlənməsi nəzəriyyəsi Şəkildə təqdim olunur. 3.




Şəkil 3: Rəqəmsal şüalanma prinsipi

3. MIMO radarı

MIMO çox girişli, çox çıxışlı sistem üçün əhatə dairəsini, məlumat sürətini və/və ya siqnal səmərəliliyini yaxşılaşdırmaq üçün rabitəni gücləndirən sistemə aiddir. Gələcək radar üçün də eyni təkmilləşdirmələr tələb olunacaq. MIMO radarları, məsələn, ortoqonal qütbləşmə ilə eyni vaxtda müxtəlif yollarla və ya eyni istiqamətdə əlaqəsi olmayan siqnallar yayırlar (şək. 4). Bu, hissələrin paylanmasını və tutarlılığını artırır. Bu, üst-üstə düşən üç MIMO radar şüasının emissiyasına bir nümunədir. OFDM spektrinin bloklanması yayım siqnallarını susdurmaq üçün istifadə olunur. Bu halda, hər bir ötürücü qəbul kanalı üçün ümumi bant genişliyi saxlanılır və beləliklə, radarın ayırdetmə qabiliyyəti azalmır, lakin ümumi radiasiya gücü, yəni mübadilə edilmir. Buna tamamilə nəzarət etmək olar. Radiasiya bir neçə alt qəfəsdən və ya eyni ızgara vasitəsilə həyata keçirilə bilər. Hər bir ötürülən siqnalın rəngli olması vacibdir, əks halda kiçik uzaq hədəflər radar görüntüsündə görünməyəcək. Əslində, interleaved OFDM siqnalları 70 dB-dən çox korrelyasiya yarada bilər.




Şəkil 4: Müxtəlif istiqamətlərdə üç şüa ilə MIMO ötürmə massivi

Qoşalaşmış ötürücü qəbuledici avtomobil radarı kimi qısa mənzilli radar üçün -40 dB-dən az olacaq, çünki antena adətən qısa mənzilli siqnallar ötürüldükdə ötürür.

4. MIMO sintetik diafraqma radarı

Rəqəmsal şüa yaratma (DBF) qabiliyyəti ilə birləşdirilmiş çoxsaylı hündürlük və/yaxud azimut qəbuledici kanalları SAR sistemlərinin gələcək nəsillərinin ən inqilabi xüsusiyyətləridir. Bu, çoxlu və ya mürəkkəb simsiz qəbuledici şüaların sintezinə imkan verir. Bununla belə, DBF sistemlərinə çoxsaylı ötürücü şəbəkələr kömək edir. Bu, bizi MIMO SAR kimi tanınan şeyə gətirir. MIMO SAR ilkin olaraq əhəmiyyətsiz görünür. Hərəkətli platforma həm də sintetik kəşf üçün ilkin şərtdir ki, bu da əlavə ötürücünün kosmik yerləşməsi səbəbindən hərəkət edən ötürücüyə müəyyən gecikmədən sonra

çatılacağını göstərir. Bununla belə, hərtərəfli bir baxış göstərir ki, ötürücülərin həyata keçirilməsi faydalı ola bilər, çünki onlar, məsələn, interferometriya və ya eyni vaxtda polarimetriya imkanlarına malikdirlər. MIMO SAR məkanın ölçüsünü genişləndirmək üstünlüyünə malikdir. Bu, ənənəvi SAR-ların əsas məhdudiyyətlərini aşan qabaqcıl strukturların inkişafına imkan verir. 5. Radar 2020 sistem blok diaqramı.

Şəkil 5 OFDM siqnalı ilə işləyən DBF əsaslı MIMO radarının inteqrasiyasını göstərir. İnterfeyslərin istisna edilməsinə baxmayaraq, Radar 2020 sistemi tamamilə rəqəmsaldır. Hər bir kanalda bu sərhədlər eynidir və yan-yana götürülür. Onlar, məsələn, daha yüksək tezliklər və daha qısa diapazonlar üçün MMIC-lərə tam inteqrasiya oluna bilər. avtomobil tətbiqlərində. Digər məqsədlər üçün OFDM MIMO siqnal generatorları artıq bazarda mövcuddur. OFDM parametrləri daha sonra tətbiq tələblərinə uyğun olaraq müəyyən edilə bilər.




Şəkil 5: OFDM kodlaşdırması ilə Radar 2020-nin blok diaqramı. NƏTİCƏ

Radar 2020-nin innovativ sistem inkişafları əksər mövcud sistem konsepsiyalarını əvəz edəcək yeni funksiyalar və proqram təminatı tələb edir. Döş xərçənginin diaqnostikası və lokalizasiyası üçün tibbi radar sistemləri üzərində iş fəal şəkildə aparılır. Bu arada, avtomobil təhlükəsizliyi və avtonom sürücülük radarları hər il milyonlarla insan tərəfindən hazırlanır. Önümüzdəki illərdə radar sistemi texnologiyasında çoxsaylı yeniliklər gələcək və müasir radar texnologiyası dizaynları az qala üsyanla üzləşəcək.

Əhəmiyyətli irəliləyişlərə baxmayaraq, son 20 il ərzində radar sistemlərinin inkişafı inkişaf etməmişdir, məsələn, elektronika və ya digər yeniliklər, radar şəbəkəsi avadanlıqları və siqnalların işlənməsi çox dəyişmişdir. Gələcək radar daha çox məlumatı əlçatan, daha çox yönlü və buna görə də daha ucuz edəcək. Hər şeydən əvvəl - potensial radar sistemləri üçün bu inkişafların əksəriyyəti hələ də digər tətbiqlərdən mövcuddur; sadəcə olaraq potensial radar sistemlərinə daxil edilməlidirlər. Radar 2020 radar şəbəkəsinin və hətta radar sənayesinin inkişafında inqilab edəcək.

Ədəbiyyat

[1] A. Moreira, P. Prats-Iraola, M. Younis, G. Krieger, I. Hajnsek, and K. P. Papathanassiou, “A tutorial on synthetic aperture radar,” *IEEEGeosci. Remote Sens. Mag.*, 2013, doi: 10.1109/MGRS.2013.2248301.

[2] S. Thorndahl *et al.*, “Weather radar rainfall data in urban hydrology,” *Hydrol. Earth Syst. Sci.*, 2017, doi: 10.5194/hess-21-1359-2017.

[3] E. Yavari, O. Boric-Lubecke, and S. Yamada, “Radar Principles,” in *Doppler Radar Physiological Sensing*, 2016.

[4] M. Heistermann, S. Jacobi, and T. Pfaff, “Technical Note: An open source library for processing weather radar data (wradlib),” *Hydrol.Earth Syst. Sci.*, 2013, doi: 10.5194/hess-17-863-2013.

[5] W. Wiesbeck, L. Sit, M. Younis, T. Rommel, G. Krieger, and A. Moreira, “Radar 2020: The future of radar systems,” in *International Geoscience and Remote Sensing Symposium (IGARSS)*, 2015, doi: 10.1109/IGARSS.2015.7325731.

[6] L. Pulvirenti, N. Pierdicca, M. Chini, and L. Guerriero, “An algorithm for operational flood mapping from Synthetic Aperture Radar (SAR) data using fuzzy logic,” *Nat. Hazards Earth Syst. Sci.*, 2011, doi: 10.5194/nhess-11-529-2011.

[7] N. Peleg, M. Ben-Asher, and E. Morin, "Radar subpixel-scale rainfall variability and uncertainty: Lessons learned from observations ofa dense rain-gauge network," *Hydrol. Earth Syst. Sci.*, 2013, doi: 10.5194/hess-17-2195-2013.

[8] B. R. Mahafza, *Radar systems analysis and design using MATLAB: Third edition*. 2016.

[9] J. Lien *et al.*, "Soli: Ubiquitous gesture sensing with millimeter wave radar," in *ACM Transactions on Graphics*, 2016, doi: 10.1145/2897824.2925953.

[10] R. C. Liu, W. Ren, H. Wang, and C. Guo, "Ground-penetrating radar," in *Principles of Modern Radar: Vol. III: Radar Applications*, 2014.

# AN ASSISTANT PLANTING ROBOT POWERED BY SOLAR ENERGY AND MADE WITH THE USE OF BIODEGREDABLE MATERIALS

**MAHAMMADALI AYRALOV, ZENFIRA HUSEYNZADE**

Baku Engineering University, Baku Higher Oil School
Chemical Engineering
Ayralovmahammadali@gmail.com
**TURIN, ITALY**

**ABSTRACT**

The primary objective of our project is to minimize human labor, particularly during the hot summermonths. This will contribute to the development of a smart village system and help reduce carbon emissionsto the maximum extent possible. Additionally, our project aims to eliminate the use of rubber. Our solutionto achieve these goals is the "RaBot" planting assistant robot. This innovative robot allows farmers toremotely plow the soil, plant seeds, and monitor the pH, moisture, and temperature of the soil. The "RaBot"is powered by a solar panel, inspired by the sun god Ra, and during its development, we will prioritize theuse of recycled or biodegradable materials over plastic.

**KEY WORDS:** 1-Robot 2-Agriculture 3-Energy 4- Solar 5-Bidegradable

## INTRODUCTION

It can be challenging to work in agricultural fields during scorching heat. Even when farmers are in need ofworkers, it can be difficult to find individuals willing to work for low wages that do not reflect the difficultyof the job. However, with the introduction of "RaBot", a new and more manageable job opportunity can bebrought to the labor market. This innovative technology allows for remote use, making it less physicallydemanding than traditional agricultural work. Additionally, "RaBot" has the capability to measure soil pH,moisture, and temperature simultaneously, saving time and energy. Furthermore, the project's commitmentto using environmentally friendly materials, rather than plastic and other non-reusable materials, makes it asustainable option for agriculture. When "RaBot" is no longer functional, its body and other componentscan be recycled, reducing waste and promoting a greener approach to farming.

The "RaBot" project offers an innovative and unique approach in the agricultural sector. This projectdemonstrates how modern technology can be utilized in agriculture by reducing the reliance on traditionalfarming methods. "RaBot" provides farmers with a sustainable and efficient agricultural practice whileembracing environmentally friendly materials and solar energy, thus adopting an environmentallysustainable approach. By offering an alternative to traditional farming methods, this project showcases apioneering role in the sector by supporting an eco-friendly and innovative approach. The uniqueness of"RaBot" lies in its ability to provide farmers with remote access, unlike existing technologies used inagriculture. This feature not only provides farmers with more flexibility

and efficiency but also improvesworking conditions by reducing physical labor. Moreover, the use of environmentally friendly materialsand solar energy in the production of “RaBot” reflects the project’s focus on research and developmenttowards environmental sustainability. In this regard, the “RaBot” project offers an innovative and ecofriendlysolution to the current needs in the sector.

The “RaBot” project holds significant potential for innovation and commercialization within the agricultural technology sector. By introducing a solar-powered autonomous planting assistant robot, we arerevolutionizing traditional farming practices and paving the way for sustainable agriculture. One of the keyinnovations of the “RaBot” project lies in its versatility and efficiency. Not only does it autonomouslyperform tasks such as soil plowing, seed planting, and soil monitoring, but it also operates on renewable energy, reducing both operational costs and environmental impact. Additionally, its capability to collectreal-time data on soil conditions enhances precision agriculture practices, leading to optimized crop yields.Furthermore, the “RaBot” project has immense commercialization potential due to its scalability and adaptability. It can be customized to meet the specific needs of different agricultural settings, from smallscale family farms to large commercial operations. Moreover, its environmentally friendly design and costeffectiveness make it an attractive option for farmers and agricultural organizations seeking to modernize their practices while minimizing resource usage. In summary, The “RaBot” project represents a groundbreaking innovation in the agricultural sector with significant potential for commercialization and widespread adoption. By integrating cutting-edge technology with sustainable practices, we aim to revolutionize the way farming is conducted while contributing to environmental conservation and food security.

**METHODS**

The "RaBot" assistant planting robot, operating on an Arduino Uno microcontroller platform,

represents a paradigm shift in precision agriculture. Integrated with cutting-edge soil sensing technologies including pH, humidity, and temperature sensors, RaBot employs data-driven insights to optimize soil conditions for crop cultivation. Through real-time data acquisition and storage facilitated by its Arduino electronic circuitry, RaBot enables adaptive soil management strategies, leveraging historical data for predictive analytics and decision support. In addition to its sensor capabilities, RaBot exemplifies sustainability with its self-sufficient energy system, harnessing solar power via an integrated photovoltaic panel. This renewable energy source not only ensures continuous operation but also reduces reliance on conventional power sources, mitigating carbon emissions and promoting eco-friendly practices in agriculture. Furthermore, RaBot pioneers the use of biodegradable polymers in critical components, adhering to circular economy principles and minimizing environmental impact. By incorporating biodegradable materials, RaBot addresses end-of-life concerns, ensuring that its ecological footprint remains minimal throughout its lifecycle.In essence, RaBot embodies the convergence of advanced sensor technologies, sustainable energy solutions, and eco-friendly materials, ushering in a new era of intelligent and environmentally conscious farming practices.

**RESULT**

In conclusion, it can be stated that there are no drawbacks to completing this project. The installation of necessary sensors for the robot has been successfully verified. Additionally, the use of environmentallyfriendly materials and reliance on solar energy make this innovation highly beneficial. This thesis is intended to protect the privacy of the Start-up project.

**REFERENCES**

[1] Bhardwaj, S., & Arora, R. (2018). Design and implementation of a solar-powered agricultural robot. In 2018 International Conference on Automation, Computational and Technology Management

(ICACTM) (pp. 1-4). IEEE.

[2] Hou, Z., Dong, F., Li, X., & Wang, Y. (2020). Design and implementation of a solar-powered robot for agricultural applications. In 2020 IEEE International Conference on Power Electronics, Smart Grid and Renewable Energy (PESGRE) (pp. 1-6). IEEE.

[3] Madhavan, K., & Vijayan, R. (2018). Solar-powered agricultural robot for field monitoring and crop maintenance. In 2018 International Conference on Smart Systems and Inventive Technology (ICSSIT) (pp. 1153-1156). IEEE.

[4] Matt, M. L., Arora, N., & Murthy, M. (2019). Design and development of a solar-powered agriculture robot for farm applications. In 2019 IEEE 9th Annual Computing and Communication Workshop and Conference (CCWC) (pp. 0001-0005). IEEE.

[5] Pandey, S., Nayar, S., & Goel, S. (2016). Solar powered robotic vehicle for agricultural applications. International Journal of Advanced Research in Electrical, Electronics and Instrumentation Engineering, 5(7), 5798-5803.

[6] Shukla, P., Jha, P. K., & Kumar, V. (2020). Design and implementation of a solar-powered autonomous agricultural robot. In 2020 11th International Conference on Computing, Communication and Networking Technologies (ICCCNT) (pp. 1-6). IEEE.

[7] Tiwari, S., Arora, N., & Shah, S. (2019). Design and implementation of a solar-powered agricultural robot for weed detection and removal. In 2019 International Conference on Computing, Power and Communication Technologies (GUCON) (pp. 1-5). IEEE.

[8] Verma, A., & Tomar, S. (2018). Solar-powered agricultural robot for crop monitoring and irrigation. In 2018 Second International Conference on Inventive Communication and Computational Technologies (ICICCT) (pp. 1258-1261). IEEE.

# ELEKTRON UÇUŞ ENMƏ AVADANLIĞI

**Məmmədov Cavid**
Milli Aviasiya Akademiyası,
Nəqliyyat Texnologiyaları fakültəsi,
*Javid.mamedov.99@gmail.com*
Bakı, Azərbaycan,

**Sabirəliyeva Dərya**
Milli Aviasiya Akademiyası
Hava Nəqliyyatı fakültəsi,
*Sabireliyevaderya@gmail.com*
Bakı, Azərbaycan

**XÜLASƏ**

Ənənəvi helikopterlərin üzləşdiyi problemlər - əməliyyat xərclərindən ətraf mühitə təsirlərə qədər-yenilikçi hava hərəkətliliyi həllərinə ehtiyac olduğunu vurğulayır. Elektron idarə olunan şaquli Qalxma və enmə vasitələri (eVTOL) davamlılıq və səmərəliliyə doğru kəskin bir dəyişikliyi təmsil edir. Onların elektrik elektrik stansiyaları yanacaqdan asılılığı və səs-küy çirklənməsini azaldır və aerodinamik dizaynı aerodinamik performansı optimallaşdırır. Bundan əlavə, EVTOL, hava məkanının istifadəsini və əlaqəsini dəyişdirəcəyini vəd edərək şəhər nəqliyyatında misilsiz rahatlıq təklif edir. Evtolların hava hərəkətliliyini demokratikləşdirdiyi bir gələcəyə doğru irəlilədiyimiz üçün istehsalçıların bu inkişaf etməkdə olan sahədəki yenilikçi töhfələrini tanımaq vacibdir. EVTOL texnologiyasının sonsuz imkanlarını ortaya qoymaq niyyəti ilə daha əlçatan, davamlı və bir-biri ilə əlaqəli Aviasiya mənzərəsi yaratmağa başlayırıq.

**Açar sözlər: elektron uçuş enmə avadanlığı, yanacaq, ətraf-mühit, elektron mühərrik, aviasiya, aeromexanika, nəqliyyat.**

## GİRİŞ

Günümüzdə sürətli urbanizasiya və artan nəqliyyat tələbatı ilə hava hərəkətliliyinin ənənəvi formaları bir sıra problemlərlə üzləşir. Bir müddət əvvəl şaquli uçuş və eniş (VTOL) imkanlarında universallıq simvolları elan edilmiş helikopterlər, indi səmərəsizlik və məhdudiyyətləri ilə qeyd olunurlar. Məsələnin mahiyyəti dərinləşdikcə aydın olur ki, helikopter bir çox sektorlarda əvəzolunmaz olsa da, bəzi böyük çatışmazlıqları özündə cəmləşdirir. Ənənəvi helikopterlərin mənfi cəhəti yüksək yanacaq sərfiyyatı ilə xeyli ağırlaşan istismar xərcləridir.

Yaşadığımız dövrdə böyük problemlərdən biri də tıxaclar, bununla yanaşı neftin baha olması və neftin istifadə sahələrinin geniş olmasıdır. Bu da Aviasiya sahəsinin baha olma səbəblərindən biri olmaqla elə yanacağın qiymətinə təsir göstərir. Bildiyimiz kimi də qısa müddətdə tonlarla yanacağın sərf olunması çox böyük vəsaitə ehtiyac duyulur. Əsas olaraq helikopterlərin yanacaq sərfiyyatını nəzərə almaq lazımdır, çünki təqdim etdiyimiz və araşdırdığımız yeni həll yolu konstruktiv cəhətdən helikopterlərə çox yaxın olması ilə bərabər helikopterlər ilə eyni fəaliyyəti görə bilirlər. Məsələn, Bell 206 JetRanger konfiqurasiyadan asılı olaraq saatda 98 ilə 114 litr arasında yanacaq yandırır. Bölgədən asılı olaraq JetA yanacağının orta qiyməti 6.97 dollardırsa, saatda yanacağın qiyməti 181.22 ilə 209.10 dollar arasındadır **[1]**. Hər zaman araşdırmalar, yeniliklər, görülən işlər nəticəsində minimum yanacaq sərfi, maksimum ətraf mühiti qorunması və iqtisadi cəhətdən səmərəli olması əsas prioritetdir.

Gündəlik istifadə etdiyimiz, aviasiya yanacağın qiymətləri də daim qeyri-sabit olduğuna görə helikopter əməliyyatlarının iqtisadi səmərəliliyi sual altında qalır. Bundan əlavə, böyük şəhərlərdəki digər problemlərdən biri də səs kirliliyidir. Araşdırdığımız uçuş aparatı ətraf mühitin səs-küy ilə çirklənməsinə (səs kirliliyinə) və şəhər sakitliyinin pozulmasına əhəmiyyətli dərəcədə təsir edəcək.

*Cədvəl 1. Aviasiya yanacağının 2020-2023-cü illərindəki dəyişən qiyməti (göstəricilər ABŞ dolları ilə, ölçü vahidi Gallon (1 Gallon = 3.78541 L))*




**Mənbə: INDEX MUNDI [8]**

Zaman keçdikcə neft hasilatı azalmağa doğru gedir. Buna misal kütləvi istehsal olunan elektrik avtomobillərini misal göstərmək olar. Bununla belə, aviasiya yanacağından istifadə edən uçuş aparatlarının (helikopterlər) zaman keçdikcə iqtisadi səmərəliyi də azalmağa doğru gedəcəyinə inanırıq.

Digər problemlərdən birinə gəldikdə isə böyük şəhərlərdə tıxac problemi hələ də öz həllini tapmayaraq qalır. Tıxac probleminə görə insanlar çoxlu vaxt və yanacaq sərf edirlər. Yanacağa qənaət baxımından bir daha tıxacın mənfi təsirinə şahid oluruq. Bundan əlavə, tıxacla üzləşən insanların kütləsi stress yaşayir və hamımız stresin nə qədər insan sağlamlığı üçün arzu olunmayan təsir olduğunu bilirik. Stres isə yaranan bir çox xəstəliklərin böyük şəhərlərdə daha çox rast gəlinir. Bütün yeni texnologiyalar yaranan zaman da ilk olaraq insan həyatının təhlükəsizliyi və vurula bilən hər bir zərərin minumuma endirilməsi nəzərə alınır.

Bundan əvvəl qeyd olunan problemlərə əlavə olaraq, karbon tullantılarının getdikcə çox olması, vurduğu ziyanı hamımıza məlumdur ki, ətraf mühit üçün zərərli və arzuolunmazdır. Helikopterlər də bu mənfi amildə böyük rol oynayırlar. Ətraf mühitin çirklənməsi, mühafizəsi, nə qədər mühüm olduğu və bu problemin həll edilməsi hər zaman diqqət mərkəzində olub. Araşdırmaların bir qismi də əsas olaraq karbon tullantılarının qarşısının alınmasına və ona mənfi təsir edən amillərin azaldılmasına yönəlmişdir.

Bütün sadalananların həll yolu isə elektrikləşdirmə gücündən istifadə edərək, eVTOL (Electronic Vertical Take off and Landing) davamlı aviasiya xidmətini yaxşılaşdıraraq, iqtisadi səmərəliliyin də yüksəlməsinə gətirib çıxaracaq. Qazıntı yanacağından asılılığını azaldır və ətraf mühitdən faydalılığın artırılması dövrünü yaradır.

eVTOL-un üstünlükləri çoxdur, özünə xas səmərəliliyi və universallığı ilə şəhər nəqliyyatını inqilablaşdırmağa hazırdır. Helikopterlərin ənənəvi konstruksiyalarının mürəkkəbliyindən azad olaraq,

aerodinamik xüsusiyyətləri və enerji səmərəliliyini optimallaşdıran müasir konfiqurasiyalar təklif edirlər. Bundan əlavə, elektrik mühərrikinin meydana gəlməsi səs-küylü çirklənmənin (səs-kirliliyinin) azalmasına gətirib çıxarır, bununla da insan həyatının keyfiyyətinin yaxşılaşmasında öz müsbət rolunu oynayır.

Əlavə olaraq da, ekoloji sabitlik və əməliyyat səmərəliliyi sahələrindən əlavə, eVTOL hava hərəkətliliyində innovasiyaların müsbət tərəflərini özündə birləşdirir. Onların kompakt amilləri və modul konstruksiyaları nəqliyyat infrastrukturunun hələ də əlçatmaz ölçülərini açmaqla şəhər hava məkanından istifadənin yeni dövrünü göstərir. Texnoloji tərəqqi yolu ilə irəlilədikcə, evtolların populyarlığı bizi gələcəyə aparır, burada artıq seçilmiş bir neçə nəfərin mülkü yox, əksinə hər yerdə ünsiyyət və tərəqqi vasitəsi olacaqdır.

Bunu bitirdikdən sonra eVTOL (elektrik şaquli Qalxma və enmə sistemləri) istehsalçılarının sayının artmasına və hava hərəkətliliyi dünyasında inqilab etmək üçün etdiklərinə nəzər salaq. Yenilik labirintində irəliləyəcəyik, amma yenə də üfüqdə olan imkanları açmağa diqqət edəcəyik.

EVTOL təyyarəsinin konsepsiyası 2009-cu ildə, NASA-nın Puffin eVTOL (Şəkil 1) konsepsiyasının "Viral" videosu 11 noyabr 2009-cu ildə ortaya çıxdı, texnologiyanın bir nəfərlik vizualizasiyasını və konsepsiyanı uçuşda nümayiş etdirdi. Bunun ardınca Puffin-in ilk hesabatı 9 yanvar 2010-cu ildə VFS (Vertical Flight Society) aeromexanika mütəxəssislərinin konfransında təqdim edildi.



Şəkil 1. 11 Noyabr 2009-cu ildə NASA-nın nümayiş etdiyi və internetdə populyarlıq yığan (PUFFIN) elektron şaquli qalxma və enmə avadanlığı

Bu konsepsiya NASA-da Distributed Electric Propulsion (DEP) adlı yeni bir texnologiyadan istifadə etdi. Puffin-in əlavə sənədləri 13 sentyabrda 10-cu AIAA (American Institute of Aeronautics and Astronautics) ATIO (Aviation Technology, Integration, and Operations) konfransında, NASA-nın Puffin elektrik Tailsitter VTOL (Şəkil 1) konsepsiyası və Puffin ehtiyat elektrik ötürücü sistemi dərc olundu. O vaxtdan bəri təyyarə istehsalçıları arasında eVTOL-a maraq xeyli artdı və Boeing, Airbus və Bell kimi şirkətlər də bu texnologiya üzərində çalışdılar:

Airbus A3 Vahana 2017-ci ildə Paris hava sərgisində təqdim edildi, [9] 2018-ci ilin yanvarında ilk uçuş. (Şəkil 2)



Şəkil 2. Airbus A3 Vahana 2017-ci il; Boeing-Aurora Flight sciences PAV; Bell Nexus 6HX.

Boeing-Aurora uçuş elmləri PAV, 2017-ci ildən bəri inkişaf etdirilir, 2019-cu ildə ilk uçuş. (Şəkil 2).

Bell Nexus 6HX cesp 2019-da təqdim edildi. (Şəkil 2).

Bu böyük təyyarə istehsalçılarına əlavə olaraq, bəzən texnoloji inkişafda lider olan startaplar bu təyyarələrin inkişafında mühüm rol oynadılar.

Uber, Jeff Holden, Nikhil Goel və Mark Moore ilə birlikdə Elevate adlı bir layihə haqqında bir məqalə yayımladı. Məqalədə tələb olunan aviasiya nəqliyyat sisteminin məqsədəuyğunluğu təsvir edilmişdir. Bu sənəd, şirkətin 2017-2019-cu illərdə həyata keçirdiyi illik Elevate (Şəkil 3) sammitləri ilə birlikdə eVTOL təyyarələri və şəhər hava hərəkətliliyi (UAM) konsepsiyalarının elmi fantastika konsepsiyasından, onlarla inkişaf layihəsi tərəfindən həyata keçirilən potensial aerokosmik sektora qədər irəliləməsinə kömək etdi.




Şəkil 3. Uber Elevate görüntüsü

2020-ci ilin dekabr ayında Uber Elevate xidməti Joby Aviation tərəfindən satın alındı. Satın alındıqdan sonra Joby CEO Jouben Beavert dedi: "Uber Elevate komandası təkcə sənayemizdə mühüm rol oynamadı, həm də on ildən artıq təcrübəyə əsaslanan, tələb olunan hərəkətliliyi təmin edən gözəl proqram alətləri dəsti hazırladılar."

Joby Aviation şirkəti isə öz quruculuq tarixini yeddi mühəndisdən ibarət kiçik bir qrup Santa Cruz üzərindəki dağlardakı emalatxanada olan anbarda başladı. Elektrik mühərrikləri, uçuş proqramı

və litium-ion batareyaları kimi texnologiyaların sərhədlərini araşdırdı və demək olar ki, hər bir komponenti sıfırdan inkişaf etdirdi. 2012-ci ildə NASA ilə əməkdaşlıq qurduqdan bir neçə il sonra apardıqları tədqiqatlarını dəqiq sınaqdan keçirərək təhlil edərək mövcud konfiqurasiyaya (Şəkil 4) gəldi və ilk dəfə bu texnologiyanın nümayişini işə saldı. 2017-ci ildə isə ilk tam miqyaslı bu avadanlıq göyə qalxdı.




Şəkil 4. Joby aviation şirkətinin eVTOL avadanlığının hal-hazırda işlək olan modeli

Toyota (beynəlxalq avtomobil istehsalçısı) da həmçinin, Joby-də strateji bir investor olmaqdan əlavə, istehsal proseslərinin inkişafı və geniş miqyaslı istehsalda təcrübələrini təmin edərək Joby komandası ilə çiyin-çiyinə işləmək üçün onlarla mühəndis cəlb etdi.

Joby şirkəti ABŞ-ın bütün buraxılış bazarlarında Hava paylaşma xidmətini Uber tətbiqinə və əksinə inteqrasiya etməyi qəbul edərək Uber ilə tərəfdaşlığını dərinləşdirdi. Uber Joby-yə yatırımlarını artırdı və proqram alətləri və kommersiya başlanğıc təcrübəsini təmin edərək Elevate bölməsini əldə etdi. Açıq havada istifadə olunan bu avadanlıq Ev-Airaport xidməti göstərməsi üçün Joby və Delta Hava Yolları arasında bir neçə şəhər arasında çoxillik tərəfdaşlıq imzalandı. Beləliklə 2023-cü il ərzində Joby şirkətinin rəsmi mənbəsinə dayaqlanaraq, aşağıdakı yazılı statistika və gələcək yönümlü strateji baxış qeyd olunub.

**İstifadəyə hazırlıq.** Eniş dəqiqliyi testlərini başa çatdırmaq üçün FAA (Federal Aviation Administration) ilə əməkdaşlıq əldə olundu, hava məkanının idarə edilməsini simulyasiya etmək üçün NASA ilə əməkdaşlıq etdi və FAA-dan Part 145 Təmir stansiyasından sertifikat aldı.

**Beynəlxalq əməliyyatlar.** Joby Dubay Hökuməti ilə altı il ərzində (aerotaksinin) istismarı üçün eksklüziv hüquqlar verən yekun müqavilə imzaladı. Müqavilə həmçinin maliyyə dəstəyini əhatə edir və erkən əməliyyatlara imkan verən tənzimləmə yollarını müəyyənləşdirir.

**Möhkəm maliyyə bazası.** 2023-cü ilin dördüncü rübünün sonunda 1,0 milyard dollar maliyyə vəsaiti və qısamüddətli investisiyalar mövcud idi. Əməliyyatlarda və əsas vəsaitlərin alınmasında istifadə olunan xalis pul vəsaitləri dördüncü rübdə 91 milyon dollar təşkil edib. Bütün il ərzində əməliyyatlarda və əsas vəsaitlərin alınmasında istifadə olunan pul vəsaitləri 344 milyon dollar təşkil edib. **[2]**

**Gələcək yönümlü baxış.** 2025-ci ildə kommersiya istismarına hazırlaşarkən kommersiyalaşdırmaya daha çox diqqət yetirəcəyi gözləyirik. İl ərzində Joby əlavə əsas bazarlarda uçuş sərgilərin seriyasını genişləndirməyi və mövcud müqavilənin çərçivəsində ən azı iki təyyarə sifariş etməklə Müdafiə Nazirliyi ilə qarşılıqlı fəaliyyətini genişləndirməyi planlaşdırır. Ohayo ştatının Dayton şəhərində komponent istehsalına başlamağı və Kaliforniyanın Marina şəhərindəki kiçik həcmli fabrikini genişləndirməyə başlamağı planlaşdırdı. 2024-cü il ərzində nağd pul, pul ekvivalentləri və qısamüddətli investisiyalardan istifadnin 440 ilə 470 milyon dollar arasında olacağını təxmin edir. **[2]**

Bu avadanlığın hansı sektorda istifadəsi isə aydınlatmaq üçün əvvəl, onun Ev-Airaport adlanan xidmətində istifadəsi qeyd olunmuşdur yəni, uçuş bileti olan hər kəs bu xidmətdən yararlanaraq Airaporta sürətlə və təhlükəsiz çata bilər. Bəs onun digər sektorlarda istifadəsi mümkündürmü, gündəlik istifadəsi üçün insanlara yararlıdırmı və tam olaraq əlçatandırmı?

Bu avadanlığın bir daha hansı sektrorlarda çalışmağını bilmək üçün də onun necə yararlı olmağını başa düşmək üçün onun üstünlükləri aydınlatmaları ilə aşağıda qeyd olunub:

**1) DAHA AZ SƏS-KÜY**

Evtol təyyarələri daha səssizdir, çünki irəli uçuşlarının əksəriyyəti müəyyən bir sürət qazandıqdan sonra təyyarəni irəli çəkən külək qaldırıcısından istifadə etməklə həyata keçirilir. Bundan əlavə, rotor sürəti helikopterlərlə müqayisədə daha aşağıdır və bu da səs-küyü azaldır.

**2) ARTAN TƏHLÜKƏSİZLİK**

Evtols rotor dizaynı, EVTOL-da çox istifadə olunan rotorların sayına görə təhlükəsizliyi təmin edir. Onlardan biri uğursuz olarsa, onu dəstəkləyə biləcək bir çox başqaları var. Eyni şey batareyalarda da olur, çünki eVTOLs tək bir batareya paketinə etibar etməyəcək və batareya uğursuz olsa belə, bort enerjisini təmin edəcək.

**3) İSTİFADƏ RAHATLIĞI**

Plauth üçün eVTOLs-un əsas üstünlüklərindən biri, təyyarənin daha çox pilotsuz uçuş kimi işləməsinə imkan verən kompüterləşdirilmiş uçuş idarəetmə sistemi və ya nəzarətçi hərəkətlərini təyyarə komponentləri üçün təlimatlara çevirən "Tel uçuş" sistemi sayəsində istifadə rahatlığıdır. "Siz əslində hərəkətlərə nəzarət etmirsiniz, baş vermək istədiklərinizə nəzarət edirsiniz" dedi Plaut. "Və sonra avtomobil nə edəcəyinə özü qərar verir." **[3]**

Bu kimi üstünlükləri nəzərə alsaq, istifadəsi üçün müxtəlif sektorların sayı daha çoxdur və gündəlik olaraq insanların bu avadanlıqdan istifadəsinin gündəmdə olması üçün çox vaxt gözləməli olmayacağıq.

1) Sərnişin xidmətləri: Bir çox eVTOL konseptual modeli hava taksisində istifadə üçün nəzərdə tutulmuşdur. eVTOL-un bir çox konseptual modelləri hazırlanmışdır, məsələn, volocopter, hava taksi tətbiqləri üçün Volocopter 2x.d-ə əsaslanan hava taksi xidmətini təklif etdi. Hətta FAA realistik gözləntilərinə görə, Elektrikli hava taksiləri 2028-ci ilə qədər uçmağa başlaya bilər. Bəzi McKinsey mütəxəssisləri bu təyyarələri növbəti on il ərzində görəcəyimizə inanırlar, digər aviasiya mütəxəssisi isə 2028-ci il Los-Anceles Olimpiadasının inkişafda olan elektrik aerotaksisini nümayiş etdirmək üçün əla fürsət olacağına inanır. **[4]**

2) Bağlamalar və çatdırılma: Google-a məxsus hava şirkəti 2020-ci ildən etibarən VTOL pilotsuz uçuş aparatları vasitəsilə çatdırılma xidmətini təklif edir. Onların dronları 100 km-ə qədər uça və 1,5 kq-a qədər yük daşıya bilir. Digər ABŞ-a məxsus daşıma şirkəti UPS (United Parcel Service) bağlamaların çatdırılma xidməti, Beta Technologies-dən 10 Elektrikli şaquli uçuş və eniş təyyarəsi alaraq, bağlamaların çatdırılmasını növbəti səviyyəyə qaldırır. **[5]** Həmçinin UPS Advanced Technology Group-un vitse - prezidenti Bala Ganesh CNBC-yə bildirib ki, təyyarə ilə helikopter arasında xaç kimi görünən yeni təyyarə növü "bu gün mövcud olmayan yeni biznes modelləri açır". "Məsələn, kənd xəstəxanalarına 1000-1500 Funt sterlinq çatdırdığı və hava limanının yerinə helikopter meydançasına endiyi bir gələcəyi təsəvvür edə bilərsiniz. **[6]**

3) Kənd təsərrüfatı: EVTOL sistemləri kənd təsərrüfatında, xüsusən bitki mühafizəsi və örtük əkinçiliyində bir çox istifadə tapır. Guardian Agriculture, 1 kq-dan çox daşıya bilən SC100 ağır yük daşıyan insansız platforma təklif edir.2023-cü ildə Guardian Agriculture-dan SC1, FAA tərəfindən ümummilli əməliyyat üçün təsdiqlənmiş ilk eVTOL sistemi oldu. **[7]**

4) Təcili tibbi yardım xidmətləri (EMS): 2020-ci ildə Jumparoo, təcili xilasetmə xidmətlərini tez bir zamanda işə salacaq kiçik bir nəfərlik eVTOL təyyarəsi üzərində işlədiyini açıqladı. Bu tip nəqliyyat vasitəsi yerüstü nəqliyyat vasitələrinin və ya helikopterlərin əvəzi deyil, elektrik mühərriki sayəsində digərlərindən daha sürətli işləyən yeni bir vasitədir. 2020-ci ildə Kanadanın Advanced Air Mobility (CAAM) konsorsiumu evtol-un xəstələrin, orqanların və dərmanların xəstəxanadan xəstəxanaya birbaşa daşınması üçün faydalarını araşdırdı.

EVTOL-un kommersiya istifadəsinə gəldikdə, təyyarə məhdudiyyətləri (hava limanları tələb olunur) və helikopter xidməti ilə əlaqəli yüksək xərclər nəzərə alınmaqla bu sektor dərindən analiz olunur. 2021-ci ildə United Airlines Ventures şirkətinin prezidenti Michael Leskinen CNBC-yə EVTOLLARIN istismarının daha ucuz olmasının əsas səbəbinin helikopterlə baş verə biləcək bir çox pis şeyin olması olduğunu söylədi. "Elektrikləşdirmə təyyarəni daha təhlükəsiz edir" dedi eVTOLs haqqında. "Təyyarələrin təhlükəsiz saxlanılması da daha ucuz başa gəlir." Sadalanan üstünlüklərin sayı çox olsa belə, əlbəttə kommersiya cəhətdən eVTOL-un istifadəsini rentabelli etmək üçün onun düzgün infrastrukturu qurulmalıdır beləliklə analizlərə dayaqlanmaq və istifadəsinin daha təhlükəsizlik etmək üçün şəhərdə və digər yerlərdə necə fəaliyyət edəcəyini proqnoz etmək lazımdır.

Əlçatanlı olduğuna gəldikdə, sərnişin başına 1 milə 2,25 dollardan 11 dollara qədər fərqli

proqnozlar var. EVTOL - un yaradılması və istismarı üçün tələb olunan infrastruktur və texnologiyalar hazırda şarj stansiyalarından texniki xidmət obyektlərinə qədər yüksək səviyyədədir. Nəzərə alınacaq digər əhəmiyyətli xərclər pilotlar, təlim və muxtar texnologiyadır. **[5]**

Bununla belə də Hotspoch şirkətinin qurucusu bu avadanlığın istifadəsi zamanı bir neçə çatışmazlığı diqqətə yetirib. "Batareyalara gəldikdə, istədikləri nəticəni əldə etmək üçün çəki artırmadan çeşidini sürətlə artırmalı olacaqlar" dedi. "Düşünürəm ki, sənayedə bunu edə biləcəkləri barədə mübahisələr var." Bundan əlavə, infrastrukturla bağlı problemlər var, məsələn, Elektrikli avtomobillərin qalxıb enə biləcəyi helikopterlərə ehtiyac və onları necə doldurmaq olar. Yanğın söndürmə başqa bir problemdir, çünki batareyalar Ev-lərdə olduğu kimi yanğın təhlükəsi yarada bilər.

Ancaq, Hər hansı bir yeni texnologiyada olduğu kimi, texnologiya geniş yayılana və kritik kütləyə çatana qədər eVTOL hər kəs üçün əlçatan olmaya bilər. Bu, hazırda orta istehlakçı üçün getdikcə daha əlçatan olan elektrikli avtomobillərə bənzəyir.

**NƏTİCƏ**

Sonda qeyd edək ki, eVTOL avtomobillərinin meydana çıxması müasir cəmiyyətin üzləşdiyi ən aktual problemlərin təsirli həllərini təklif edən nəqliyyat sahəsindəki dəyişikliklər dövrünü qeyd edir. Səs - küy çirklənməsi, karbon dioksid emissiyaları və yanacaq səmərəsizliyi problemləri uzun müddətdir ki, tıxaclı yollardan tutmuş səs-küylü şəhər səmasına qədər ənənəvi nəqliyyat növləri üçün problemdir. Bununla birlikdə, eVTOL texnologiyasının ortaya çıxması ilə daha davamlı və təsirli bir gələcəyə doğru bir paradiqma dəyişikliyi ərəfəsindəyik.

EVTOL-un inkişaf perspektivlərini araşdırarkən bir çox şirkətin bu sürətlə böyüyən bazarda üstünlük uğrunda mübarizə apardığı aydın olur. Tanınmış aerokosmik nəhənglər və çevik startaplar arasında rəqabət çox yüksəkdir, çünki yenilikçilər şaquli uçuşların bütün potensialını açmağa çalışırlar. Bu rəqabət mühiti hava hərəkətliliyi sahəsində mümkün olan sərhədləri genişləndirərək yenilik və tərəqqiyə təkan verir.

Üstəlik, eVTOL texnologiyasının tətbiqi imkanları böyükdür və geniş nəticələrə malikdir. Ənənəvi sərnişin daşımalarına əlavə olaraq, eVTOL tibbi malların çatdırılması, hərbi logistika və sürətləndirilmiş bağlamalar kimi sahələrdə inqilab edə bilər. Bu nəqliyyat vasitələrinin çox yönlü olması, şəhər mühitində asanlıqla gəzmək qabiliyyəti ilə birlikdə artan əlaqə və səmərəlilik üçün yeni imkanlar açır.

EVTOL-un geniş tətbiqinin kommersiya nəticələrini nəzərdən keçirsək, bunun faydaları müxtəlifdir. Emissiyaların azaldılması və tıxacın azaldılması ilə eVTOL ənənəvi nəqliyyat növlərinə daha davamlı və davamlı alternativ təklif edir. Bundan əlavə, şaquli eniş və qalxma qabiliyyəti, ənənəvi infrastrukturun məhdudiyyətlərini atlayaraq bir nöqtədən digərinə birbaşa uçuşlara imkan verən misilsiz bir rahatlıq təmin edir.

Bununla birlikdə, bu texnologiyanı müşayiət edən problemlərdən və məhdudiyyətlərdən xəbərdar olmaq vacibdir. Normativ maneələr, təhlükəsizlik problemləri və infrastruktur tələbləri geniş tətbiq üçün əhəmiyyətli maneələr yaradır. Bu problemlərin həlli evtolların Nəqliyyat ekosistemimizə təhlükəsiz və məsuliyyətli inteqrasiyasını təmin etmək üçün sənaye maraqlı tərəfləri, siyasətçilər və tənzimləyicilər arasında əməkdaşlıq tələb edəcək.

Davamlılıq və səmərəliliklə təyin olunan gələcək üçün bir kurs təyin edərkən, eVTOLs inteqrasiyası irəliyə doğru perspektivli bir yol təqdim edir. Davamlı yenilik, əməkdaşlıq və investisiya ilə gələcək nəsillər üçün daha təmiz, daha sərfəli və daha səmərəli nəqliyyat növü yaratmaq üçün eVTOL texnologiyasının bütün potensialından istifadə edə bilərik. Bu yola qədəm qoyarkən, hər kəs üçün parlaq bir gələcək qurmaq fürsətindən istifadə edək.

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT**

1) Jen Boyer (2024). How to Calculate the Full Cost of Owning a Helicopter: https://helitrader.com/how-to-calculate-the-full-cost-of-owning-a-helicopter/#:~:text=For%20instance%2C%20the%20Bell%20206,hour%20is%20%24181.22%20to%20%24209.10.

2) Joby Aviation (2024). Joby Aviation Reports Fourth Quarter and Full Year 2023 Results: https://www.jobyaviation.com/news/joby-aviation-reports-fourth-quarter-full-year-2023-results/

3) Jacob Biba (2023). What Are eVTOLs? Are They the Future of Aviation?: https://builtin.com/transportation-tech/evtol-aircraft

4) Rob Mark (2018). Pipistrel Unveils eVTOL Concept:

https://www.flyingmag.com/pipistrel-unveils-evtol-concept/

5) Economic Times (2020). After Alphabet's 'Wing', Amazon's 'Prime Air' gets US approval to deliver items through drones:

https://economictimes.indiatimes.com/magazines/panache/after-alphabets-wing-amazons-prime-air-gets-us-approval-to-deliver-items-through-drones/articleshow/77863361.cms

6) Frank Holland (2021). UPS agrees to buy electric vertical aircraft to speed up package delivery in small markets:

https://www.cnbc.com/2021/04/07/ups-to-buy-evtol-aircraft-to-speed-up-package-delivery-in-small-markets.html

7) Amprius (2023). Guide to Electric Vertical Take-off and Landing (eVTOL) Aircraft: https://amprius.com/evtol/

8) https://www.indexmundi.com/commodities/?commodity=jet-fuel&months=60

9) Valerie Insinna (2023). Joby Aviation to build air taxi production plant in Ohio: https://www.reuters.com/business/aerospace-defense/joby-aviation-build-air-taxi-production-plant-ohio-2023-09-18/

10)Thomas A. Horne (2023). THE LEADER OF THE EVTOL PACK: https://www.aopa.org/news-and-media/all-news/2023/april/pilot/joby-s4-coming-to-you-in-2025

11)Jason Pritchard (2023). Joby Aviation to include pilot on board its eVTOL aircraft, as company expands flight test programme:

https://evtolinsights.com/2023/10/joby-to-include-pilot-on-board-its-evtol-aircraft-as-company-expands-flight-test-programme/

12)Evtol news (2022). Joby Aviation S4 2.0 (pre-production prototype):

https://evtol.news/joby-s4

13)JAMES HERRERA (2024). Joby Aviation to deliver three more electric aircraft to US Air Force:

https://www.mercurynews.com/2024/03/25/joby-to-deliver-three-more-aircraft-to-u-s-air-force-at-edwards-and-macdill/

# RADİOLOKASİYA SİSTEMİNDƏ TELEVİZYA PARLAQLIQ SİQNALININ XARAKTERİSTİKALARI

**AYSEL SALMANOVA**
Bakı Mühəndislik Universiteti
Mühəndislik fakültəsi, Avtomatika, telekommunikasiya və energetika kafedrası
*Email: asalmanova2@std.beu.edu.az*
BAKI, AZƏRBAYCAN

**XÜLASƏ**

İşdə radiolokasiya sistemində televizya parlaqlıq siqnalının xarakteristikaları üçün analitik ifadələr alınmışdır. Müəyyən edilmişdir ki, radiolokasiya sistemindəki aşkarlama xarakteristikaları parlaqlıq siqnalının avtokorrelyasiya funksiyasının yan ləçəklərinin səviyyəsindən, siqnalın gücündən və əsas antenanın istiqamətlənmə diaqramının yan ləçəklərinin formasından çox asılıdır. Eyni zamanda müəyyən edilmişdir ki, parlaqlıq siqnalının korrelyasiya xüsusiyyətləri ötürülən televiziya təsvirindən asılıdır və yayım zamanı əhəmiyyətli dərəcədə dəyişə bilər.

Analytical expressions for the characteristics of the television brightness signal in the radar system have been obtained. It has been established that the detection characteristics of the radar system are highly dependent on the level of the side lobes of the autocorrelation function of the

brightness signal, the signal strength, and the shape of the side lobes of the directivity diagram of the main antenna. At the same time, it was determined that the correlation characteristics of the luminance signal depend on the transmitted television image and can change significantly during the broadcast.

**AÇAR SÖZLƏR: Siqnalların aşkarlanması, antena, radiolokasiya sistemi, parlaqlıq siqnalı, istiqamətlənmə diaqramı.**

**KEYWORDS: Signal detection, antenna, radar system, brightness signal, radiation patterns.**

## GİRİŞ

Hazırda bistatik sinfə aid olan kənar işıqlandırmalı radiolokasiya sistemlərinə göstərilən maraq onların gizlilik, səmərəlilik və ətraf mühitə uyğunluğu kimi üstünlükləri ilə bağlıdır. Bu sistemin fəaliyyətində məxsusi radiotezlik resursu tələb edilmir. Radiolokasiya tapşırığına yaxşı uyğun gələn siqnallardan biri nisbətən yüksək enerjiyə və kifayət qədər spektral genişliyə malik olan televiziya parlaqlıq siqnalıdır [1, 2]. Hədəfdən əks olunan siqnalın korrelyasiya aşkarlanması üçün birbaşa ötürücü stansiyadan əlavə antenadan alınan dayaq siqnalı istifadə olunur. Bununla belə, birbaşa siqnal əsas antenanın yan ləçəklərinə da nüfuz edir. Onu zəiflətmək üçün bir sıra tədbirlərə baxmayaraq [3, 4], birbaşa siqnalın söndürülmüş qalığı aşkarediciyə nüfuz edir və bu hal aşkarlama xarakteristikalarını hesablayan zaman nəzərə alınmalıdır. Bu işdə Qauss küyü fonunda parlaqlıq televiziya siqnalının aşkarlanma xarakteristikalarını və radiolokasiya sistemində birbaşa siqnalın söndürülmüş qalığını hesablamaq üçün analitik ifadələr alınmışdır.

## NƏZƏRİ ANALİZ

Televiziya işıqlandırması olan müasir radiolokasiya sistemləri iki kvadratur rəqəmsal siqnal emalından istifadə edir [4], çünki qəbul edilən siqnalların fazaları apriori məlum deyil. Buna görə korrelyasiya aşkaredicinin girişi tam və dayaq siqnalları daxil olur:

$$\dot{m}(n) = (\dot{E}_c + \dot{E}_m U_m(\Delta tn - t_d))\exp(j\Omega_D \Delta tn) + \dot{h}(n), \quad (1)$$

$$\dot{m}_0(n) = (\dot{E}_{c0} + \dot{E}_{m0} U_m(\Delta tn), \quad (2)$$

burada $n$ diskret siqnalın nömrəsi; $\dot{E}_c, \dot{E}_{c0}$ - müvafiq olaraq hədəf və istinad kanallarında parlaqlıq siqnalının sabit komponentinin kompleks amplitudları; $\dot{E}_m, \dot{E}_{m0}$ - müvafiq olaraq hədəf və istinad kanallarında parlaqlıq siqnalının modulyasiya komponentinin kompleks amplitudları; $U_m(t)$ parlaqlıq siqnalının modulyasiya komponentinin güclə normallaşdırılmış əyrisi; $\Delta t$ - $U_m(t)$ korrelyasiya vaxtının iki qatına bərabər seçilən siqnal seçmə müddəti; $t_d$ - hədəfdən əks olunan siqnalın birbaşa siqnala nisbətən gecikməsi; $\Omega_D$ - əks olunan siqnalın Dopler tezliyinin dəyişməsi; $\dot{h}(t)$ - radiotraktda Qauss küyləri və radioqəbuledicinin küyü nəzərə alınmaqla müdaxiləsini nəzərə alaraq additiv küydür.

Qəbul edək ki, parlaqlıq siqnalı zaman-stasionar modulyasiya komponenti ilə məhdudlanır. Onda normallaşdırma və mərkəzləşdirmə şərtləri aşağıdakı kimi olacaq:

$$\lim_{N\to\infty} \frac{1}{N}\sum_{n=0}^{N-1} U_m^2(\Delta tn + \tau) = 1, \ \lim_{N\to\infty} \frac{1}{N}\sum_{n=0}^{N-1} U_m(\Delta tn + \tau) = 0, \ \forall \tau \quad (3)$$

Parlaqlıq siqnalının modulyasiya komponentinin diskret avtokorrelyasiya funksiyası:

$$B_m(\Delta ti) = \frac{1}{N}\sum_{n=0}^{N-1} U_m(\Delta tn) U_m(\Delta tn - \Delta ti). \quad (4)$$

Parlaqlıq siqnalının modulyasiya komponentini seçmək üçün Dopler tezliyi $\Omega_C$ qiymətilə düzəldilir və qəbul edilən siqnalın sabit komponenti çıxarılır. Modulyasiya komponentini hədəf və istinad kanallarında $\Omega_D = \Omega_c$-də təcrid etdikdən sonra alarıq:

$$\dot{m}_m(n) = \dot{E}_m U_m(\Delta tn - t_d) + \dot{h}(n)\exp(-j\Omega_C \Delta tn), \quad (5)$$

$$\dot{m}_{m0}(n) = \dot{E}_{m0} U_m(\Delta tn). \quad (6)$$

Yayımlanan televiziya siqnalının aprior naməlum parametrlərini, radiodalğanın yayılma şərtlərini, diapazonunu və hədəfini nəzərə alaraq, $\dot{E}_m$ amplitudunu sıfır orta qiymətli və dispersiyası

$\mu_2(\dot{E}_m) = P_m$ olan kompleks Qauss təsadüfi dəyişən kimi qəbul edilməlidir, burada $P_m$ televiziya parlaqlıq siqnalının modulyasiya komponentinin gücdür. Additiv maneəni $\mu_2(\dot{h}(n)) = P_n$ dispersiyaya malik korrelyasiya olunmayan mürəkkəb normal təsadüfi proses kimi qəbul etmək olar, burada $P_n$ səs-küyün gücüdür. Onda siqnalının səs-küy nisbəti üçün yaza bilərik:

$$\rho_m = \frac{P_m}{P_n}. \quad (7)$$

Korrelyasiya siqnalının işlənməsinin nəticəsi olaraq $\dot{W}_i = \sum_{n=0}^{N-1} \dot{m}_m(n)\dot{m}_{m0}(n-i)$. (4) nəzərə alınmaqla aşağıdakını yaza bilərik:

$$\dot{W}_i = \dot{E}_m \dot{E}_{m0} NB_m(\Delta ti - t_d) + \dot{E}_{m0} \sum_{n=0}^{N-1} \dot{h}(n) U_m(\Delta tn - \Delta ti) \exp(-j\Omega_C \Delta tn). \quad (8)$$

$\dot{W}_i$ ehtimal xarakteristikaları $\dot{E}_m$ və $\dot{h}(n)$ təsadüfi dəyişənləri ilə müəyyən edilir. Aydındır ki, $\dot{W}_i$ ortası sıfır olan Qauss təsadüfi dəyişəndir. (8) ifadəsindən onun $\sigma^2_{Wi}$ dispersiyasını tapmaq asandır. Onda (7) ifadəsi və (5) normallaşma şərtini nəzərə alaraq kifayət qədər böyük *N* üçün alarıq:

$$\sigma^2_{Wi} = P_n \left|\dot{E}_{m0}\right|^2 N(\rho_m NB^2_m(\Delta ti - t_d) + 1),\ \sigma^2_{Xi} = \sigma^2_{Yi} = \frac{1}{2}\sigma^2_{Wi}, \quad (9)$$

burada $\sigma^2_{Xi}, \sigma^2_{Yi} = \frac{1}{2}\sigma^2_{Wi} - \dot{W}_i$ kvadratur dispersiyalardır.

Qauss təsadüfi dəyişənin $\dot{W}_i$ kvadrat modulu $Z_i = X_i^2 + Y_i^2$ ehtimal sıxlığı ilə eksponensial paylanmaya malikdir.

$$P_{Zi}(r) = \frac{1}{2\sigma^2_{Xi}} \exp\left(-\frac{r}{2\sigma^2_{Xi}}\right),\ r \geq 0. \quad (10)$$

$Z_i$ ehtimal sıxlığı aşağıdakı kimi təyin edilir:

$$P_Z(r) = \frac{1}{P_n \left|\dot{E}_{m0}\right|^2 N(\rho_m N + 1)} \exp\left(-\frac{r}{P_n \left|\dot{E}_{m0}\right|^2 N(\rho_m N + 1)}\right),\ r \geq 0. \quad (11)$$

Hədəf kanalında yalnız səs-küyün mövcudluğunda $Z_i$ ehtimal sıxlığının ifadəsi $\rho_m$ = 0 qəbul edilməklə (11) ifadəsindən alına bilər.

$$P_{Zi0}(r) = \frac{\exp\left(\frac{r}{P_n \left|\dot{E}_{m0}\right|^2 N(\rho_{md} NB^2_m(\Delta ti) + 1)}\right)}{P_n \left|\dot{E}_{m0}\right|^2 N(\rho_{md} NB^2_m(\Delta ti) + 1)},\ r \geq 0,\ i \neq 0, \quad (12)$$

burada $\rho_{md} = \frac{P_{md}}{P_n}$.

*i*-ci elementində yanlış həyəcan ehtimalı

$$F = 1 - \int_0^l P_{Zi0}(r)dr = \exp\left(-\frac{l}{P_n \left|\dot{E}_{m0}\right|^2 N(\rho_{md} NB^2_m(\Delta ti) + 1)}\right),\ i \neq 0, \quad (13)$$

Beləliklə, verilmiş $F_r$ ehtimalı üçün Neyman-Pirson meyarına görə optimal olan həddi:

$$l_{opt.i} = P_n \left|\dot{E}_{m0}\right|^2 N(\rho_{md} NB^2_m(\Delta ti) + 1) \ln F_r,\ i \neq 0, \quad (14)$$

Optimal həddə düzgün aşkarlanma ehtimalı

$$D_i = 1 - \int_0^{l_{opt\,i}} P_z(r)dr = F_r^{(\rho_{md} NB_m^2(\Delta ti)+1)/(\rho_m N+1)},\ i \neq 0, \quad (15)$$

Siqnalın səs-küy nisbətini $\mu = \frac{P_m}{P_{md}}$ təqdim etməklə və parlaqlıq siqnalının modulyasiya komponentinin avtokorrelyasiya funksiyasının yan ləçəklərini bəzi orta qiymətlə $B_{ms}$ ilə əvəz etməklə yaza bilərik:

$$D = F_r^{(\rho_m NB_{ms}^2/\mu+1)/(\rho_m N+1)}. \quad (16)$$

Aşkarlama xarakteristikalarının (16) ifadəsinə uyğun hesablanmasının nəticələri göstərir ki, (şəkil 1) düzgün aşkarlamanın maksimum əldə edilə bilən ehtimalı var (vahiddən az), onun qiyməti yanlış həyəcan siqnalının tələb olunan ehtimalından, avtokorrelyasiya funksiyasının yan ləçəkləri və siqnal-küy nisbətinin səviyyəsindən asılıdır:

$$D_{\max} = \lim_{\rho_m \to \infty} D = F_r^{B_{ms}^2/\mu}. \quad (17)$$




**Şəkil 1.** Modulyasiya komponentinin aşkarlanması xarakteristikaları:

a) $N = 10000;\ F_\tau = 10^{-6};\ \mu = 1;\ 1 - B_{ms} = 0{,}01;\ 2 - B_{ms} = 0{,}1;\ 3 - B_{ms} = 0{,}2;$

b) $N = 10000;\ F_\tau = 10^{-6};\ B_{ms} = 0{,}1;\ 1 - \mu = 10\,dB;\ 2 - \mu = 0\,dB;\ 3 - \mu = -10\,dB$

Hədəf siqnal kanalı üzərindən alınan parametrlər ilə tələb olunan aşkarlama xüsusiyyətləri arasındakı əlaqə şəkil 2-də təsvir edilmişdir.




**Şəkil 2.** Parlaqlıq siqnalının siqnal-küy nisbətindən asılılığı:

$F_\tau = 10^{-6};\ 1 - D_{\max} = 0{,}5;\ 2 - D_{\max} = 0{,}9;\ 3 - D_{\max} = 0{,}95;\ 4 - D_{\max} = 0{,}99;\ 5 - D_{\max} = 0{,}995;\ 6 - D_{\max} = 0{,}999$

**NƏTICƏ**

Radiolokasiya sistemində televizya parlaqlıq siqnalının xarakteristikaları üçün analitik ifadələr alınmışdır. Müəyyən edilmişdir ki, radiolokasiya sistemindəki aşkarlama xarakteristikaları parlaqlıq siqnalının avtokorrelyasiya funksiyasının yan ləçəklərinin səviyyəsindən, siqnalın gücündən və əsas antenanın istiqamətlənmə diaqramının yan ləçəklərinin formasından çox asılıdır. Eyni zamanda müəyyən edilmişdir ki, parlaqlıq siqnalının korrelyasiya xüsusiyyətləri ötürülən televiziya təsvirindən asılıdır və yayım zamanı əhəmiyyətli dərəcədə dəyişə bilər. Alınmış nəticələr siqnalların rəqəmli emalı prosesində, aktiv və passiv radiolokasiya sistemlərində, radionaviqasiya sistemlərində tətbiq edilə bilər.

**ƏDƏBIYYAT SIYAHISI**

6. Islamov, I. (2023). Optimization of broadband microstrip antenna device for 5G wireless communication systems. Transport and Telecommunication, 24(4), 409-422.

7. Islamov, I., & Safarli, A. (2023). Design, Modelling and Research of an Antenna System for Transmitting and Receiving Information in Satellite Systems. Transport and Telecommunication, 24(3), 297-308.

8. Кутузов, В.М., Веремьев В.И., Туан Н., Воробьев Е.Н. (2024). Анализ возможностей использования сигналов подсвета 5G в полуактивной радиолокационной системе. Радиоэлектроника, 27(1), 67-78.

# NAQİLSİZ LOKAL ŞƏBƏKƏLƏRİN QURULMASI VƏ İŞ PRİNSİPİ

**AYSU QURBANLI**
Bakı Mühəndislik Universiteti
Mühəndislik Fakultəsi/"Avtomatika,
telekommunikasiya və energetika"
kafedrası
*qurbanliaysu3@gmail.com*
BAKI, AZƏRBAYCAN

**XÜLASƏ**

Kibertəhlükələrin təhlilində süni intellektin rolu kibertəhlükəsizlik mənzərəsini əhəmiyyətli dərəcədə dəyişir. Böyük miqdarda məlumatı emal etmək, gizli nümunələri müəyyən etmək, gündəlik tapşırıqları avtomatlaşdırmaq və sıfır gün zəifliklərini aşkar etmək qabiliyyəti ilə təşkilatlar təhlükəsizlik tədbirlərini əhəmiyyətli dərəcədə gücləndirə və yeni təhdidlərdən qabaqda qala bilərlər. Bununla belə, AI əsaslı təhlükəsizlik sistemlərinin effektivliyini və etibarlılığını təmin etmək üçün rəqib hücumlar kimi süni intellektlə bağlı problemləri həll etmək çox vacibdir. Adaptiv generativ süni

intellekt təhlükənin dinamik aşkarlanmasında getdikcə daha çox əhəmiyyət kəsb edir. Geniş spektrli potensial kibertəhlükələri simulyasiya edərək, bu sistemlər yeni və inkişaf edən hücum vektorlarını tanımaq və onlara uyğunlaşmaq üçün öyrədilir. Süni intellektin generativ imkanları real təhlükə ssenariləri yaratmağa imkan verir, təhlükəsizlik qruplarına yaranan təhdidləri müəssisə üçün real riskə çevrilməzdən əvvəl daha yaxşı anlamağa və onlara hazırlaşmağa kömək edir.

Süni intellektdən istifadə etməklə şəbəkə trafikinin təhlili şübhəli və ya zərərli fəaliyyətin aşkar edilməsində əsas rol oynayır. Dərin öyrənmə alqoritmləri böyük həcmli məlumatlarda mürəkkəb nümunələri tanıya bilər ki, bu da zərərli proqramları və ya zərərli fəaliyyət kimi kiber təhlükələri göstərən anomaliyaları müəyyən etməyə kömək edir. Real vaxt rejimində şəbəkə trafikinin təhlili süni intellektə əsaslanan anomaliyaların aşkarlanması ilə birlikdə təhdidləri tez müəyyən etmək və zərərsizləşdirmək qabiliyyətini xeyli artırır. [3]

Koqnitiv təhlükəsizlik əməliyyatları mərkəzləri (SOCs) süni intellektin istifadəsi ilə çevrilir, böyük həcmdə məlumatları emal etməyə və gündəlik tapşırıqları avtomatlaşdırmağa qadir olan koqnitiv qurumlara çevrilir. Maşın öyrənmə alqoritmləri proqnozlaşdırıcı analitika, avtomatlaşdırılmış insident reaksiyası və potensial risk əsasında xəbərdarlıq prioritetləşdirilməsini təmin edir. Koqnitiv SOC-lar təhlükəsizlik qruplarına xəbərdarlıqların çoxluğuna qapılmaqdansa, diqqətlərini strateji məsələlərə yönəltməyə, qərarlar qəbul etməyə və cavablar planlaşdırmağa imkan verir. Kibertəhlükəsizlik təhdidləri inkişaf etməyə davam etdikcə, süni intellekt, şübhəsiz ki, həssas məlumatların və kritik infrastrukturun qorunmasında əsas rol oynayacaq.

***Nəticə***

Müasir rəqəmsal dünyada kibertəhlükəsizlik biznes və təşkilatlar üçün getdikcə daha əhəmiyyətli və mürəkkəb məsələyə çevrilir. Texnologiyada, o cümlədən süni intellektdə irəliləyişlər kibertəhlükələrin effektiv aşkarlanması və onlara qarşı mübarizə üçün yeni perspektivlər açır. Bu araşdırmada AI-nin kibertəhlükələrin təhlilində və onlarla mübarizədə rolu, eləcə də müəssisələrin kibertəhlükəsizliyinin gücləndirilməsinə təsiri araşdırılıb.

Süni intellekt kibertəhlükəsizlik sahəsinə əhəmiyyətli faydalar gətirir. Onun real vaxt rejimində böyük həcmli məlumatları emal etmək qabiliyyəti ona ənənəvi analiz metodlarından istifadə etməklə aşkar olunmayan gizli təhlükələri və anomaliyaları müəyyən etməyə imkan verir. Maşın öyrənmə alqoritmlərinin istifadəsi süni intellektə daim öyrənməyə və yeni təhdid növlərinə uyğunlaşmağa imkan verir və bu, onu müasir təhlükəsizlik sistemlərinin ayrılmaz tərkib hissəsinə çevirir. Süni intellektin dinamik kibertəhlükəsizlik təhdidlərinin aşkarlanmasına inteqrasiyası inkişaf edən kibertəhlükələrə qarşı davam edən mübarizədə əhəmiyyətli irəliləyişdir. Bu texnologiyalar nəinki təhdidlərin aşkarlanmasının sürətini və dəqiqliyini təkmilləşdirir, həm də müəssisələrə qabaqlayıcı və adaptiv tədbirlər görməklə kibertəhlükəsizlikdə lider mövqe tutmağa imkan verir. Süni intellekt inkişaf etdikcə, insan təcrübəsi ilə süni intellekt arasındakı sinerji korporativ müdafiənin gücləndirilməsində və onları daim dəyişən təhlükə mənzərəsindən qabaqda saxlamaqda əsas rol oynayacaq. Kibertəhlükəsizlikdə süni intellektdən istifadənin əsas üstünlüklərindən biri onun təhdidlərin təhlili və cavab proseslərinin avtomatlaşdırılması qabiliyyətidir. Xəbərdarlıqların avtomatik süzülməsi və prioritetləşdirilməsi, həmçinin kritik təhdidlərin sürətli aşkarlanması və aradan qaldırılması təşkilatlara kiberhücumların riskini və potensial təsirini minimuma endirməklə yanaşı təhlükəsizlik təhdidlərini effektiv şəkildə idarə etməyə kömək edir.

Qeyd etmək vacibdir ki, bütün üstünlüklərə baxmayaraq, kibertəhlükəsizlikdə süni intellektdən istifadə də müəyyən çətinliklər və risklərlə gəlir. Süni intellekt alqoritmlərinin təcavüzkarlar tərəfindən manipulyasiya edilməsi və ya aldadılması ehtimalı, eləcə də rəqib hücumlardan qorunma ehtiyacı təhlükəsizlik sistemlərinin davamlı təkmilləşdirilməsini və yenilənməsini tələb edir.

Bununla belə, müasir kibertəhlükəsizlik tədqiqatları informasiya və infrastrukturu kibertəhlükələrdən qorumaq üçün süni intellektdən istifadənin sərhədlərini genişləndirməyə davam edir. Süni intellektin kibertəhlükəsizlik sistemlərinə inteqrasiyasına təkan vermək müəssisələr üçün riskləri idarə etmək, təhdidləri aşkar etmək və sürətlə dəyişən kibertəhlükə mühitində təhlükəsizliyi qorumaq üçün yeni imkanlar açır.

Bu tədqiqat müəssisələrdə kibertəhlükəsizlik təhdidlərinin aşkarlanması üçün generativ süni intellektin potensial təsiri və imkanları haqqında fikir verir. Süni intellekti özündə birləşdirən bu cür inteqrasiya olunmuş həllərdən istifadə etmək rəqəmsal dövrdə möhkəm və davamlı kibertəhlükəsizlik tədbirləri axtaran bizneslər üçün vacibdir.

***Ədəbiyyat***

1. Həşimov Məmməd. Əşyaların İnterneti texnologiyaları əsasında yaradılan şəbəkə mühitində hücumların təhlil // "İnformasiya təhlükəsizliyinin aktual multidissiplinar elmi-praktiki problemləri" IV respublika konfransı, 14 dekabr 2018-ci il, s. 195-198
2. Rayavarapu, S.M., Prasanthi, T.S., Rao, G.S. and Kumar, G.S., 2023, July. Generative Adversarial Networks for Anomaly Detection in Cyber Security: A Review. In 2023 4th International Conference on Electronics and Sustainable Communication Systems (ICESC) (pp. 662-668)
3. Krundyshev, V. and Kalinin, M., 2021, April. Generative adversarial network for detecting cyber threats in industrial systems. In Proceedings of International Scientific Conference on Telecommunications, Computing and Control: TELECCON 2019 (pp. 1-13)
4. Nassar, A. and Kamal, M., 2021. Machine Learning and Big Data analytics for Cybersecurity Threat Detection: A Holistic review of techniques and case studies. Journal of Artificial Intelligence and Machine Learning in Management, 5(1), pp.51-63
5. Babu, C.S., 2024. Adaptive AI for Dynamic Cybersecurity Systems: Enhancing Protection in a Rapidly Evolving Digital Landscap. In Principles and Applications of Adaptive Artificial Intelligence (pp. 52-72). IGI Global
6. Trifonov, R., Nakov, O. and Mladenov, V., 2018, December. Artificial intelligence in cyber threats intelligence. In 2018 international conference on intelligent and innovative computing applications (ICONIC) (pp. 1-4)
7. Trifonov, R., Nakov, O. and Mladenov, V., 2018, December. Artificial intelligence in cyber threats intelligence. In 2018 international conference on intelligent and innovative computing applications (ICONIC) (pp. 1-4)
8. Mohanad Halaweh. Viewpoint: Artificial Intelligence Government (Gov. 3.0): The UAE Leading Model // Journal of Artificial Intelligence Research, June 2018, № 62, pp. 270-272
9. https://vestnik-glonass.ru/news/tech/iskusstvennyy-intellekt-analiziruet-i-ustranyaet-kiberugrozy/
10. https://www.imperva.com/learn/application-security/trojans/
11. https://vetennamine.az/suni-intellekt-kibert%C9%99hluk%C9%99sizlik-mudafi%C9%99sinin-gucl%C9%99ndirilm%C9%99sind%C9%99-muhum-rol-oynayir/
12. https://data.edu.az/az/data-bloq/suni-intellekt-vasitesile-kiber-tehlukesizliyin-guclendirilmesi/

# KOMPÜTER ŞƏBƏKƏLƏRININ TƏHLÜKƏSIZLIK TƏDBIRLƏRI

**ƏNVƏR AXUNDOV**
Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC), Murtuza Muxtarov, 194, Bakı, Yasamal, AZ1065
BMDM, Kompüter elmləri, İnformasiya sistemləri, Qrup-560
*Enverakhundzada@gmail.com*
BAKI, AZƏRBAYCAN

**XÜLASƏ**

İnformasiya texnologiyalarına olan tələblər bu sahənin hər gün yeniliklər etməsini zəruri hala gətirir. İnformasiyanın vahid bir şəbəkədə, yəni internet üzərindən ötürüldüyünü nəzərə alsaq bu sahədə edilən araşdırmalar o qədər də təəccüblü deyil. Kompüter şəbəkələri yaranan vaxtdan bu günə qədər bir neçə əsas məsələni önəmli dərəcədə əsəs tutaraq inkişaf istiqamətlərini seçmişdir. Sözsüz ki, burada təhlükəsizliyin təmin olunması başlıca meyarlardandır. Bu meyar özündə bir sıra problem və çətinlikləri ehtiva etsə də mühəndis və şirkətlərin məqsədi bu sullara cavab tapmaqdır. Digər tərəfdən baxdıqda isə şəbəkənin yaradıldığı gündən etibarən sturuktur etibarı ilə çox da dəyişdiyini demək olmaz. Sadəcə olaraq yeni texnologiyalar, üsullar avadanlıqların yaranması onu bu qədər mürəkkəb və geniş-miqyaslı hala gətirib. İnformasiya cihazlarında olan bu dəyişikliklər hər biri özündən əvvəlki nəslin çatışmayan tərəflərini inkişaf etdirməklə ərsəyə gəlmişdir. Bu qanunauyğunluq kompüter şəbəkələri üçün də keçərlidir. Amma şəbəkənin təhlükəsizlik sturukturunun təmin olunması digər məsələlərdən daha mürəkkəb bir formadadır. Qorunan məlumatın çox olması və eyni zamanda üçüncü şəxslərin də informasiya sahəsindəki bacarıqları məsələnin ən çətin tərəfidir. Qeyd etmək lazımdır ki, hər nə qədər məlumatların ötürülməsi üçün yeni üsulların tətbiqinə çalışılsa belə məlumatlar olan hücumlardan tam olaraq müdafiə o qədər də asan deyil. Şəbəkə mühəndislərinin vəzifə və öhdəlikləri informasiya təhlükəsizliyinin təmin olunmasıdır. Bu isə artıq provayderlərin yaratdığı texnologiya və imkanlar sayəsində aparılır.

**Açar sözlər: informasiya, təhlükəsizlik, texnologiya**

**SUMMARY**

The requirements for information technologies make it necessary for this field to innovate every day. Considering that information is transmitted in a single network, that is, over the Internet, the researches in this field are not so surprising. Since its inception, computer networks have chosen their development directions, taking into account several key issues. It goes without saying that security is one of the main criteria here. Although this criterion contains a number of problems and difficulties, the goal of engineers and companies is to find answers to these questions. On the other hand, it cannot be said that the structure of the network has not changed much since its creation. It is simply the emergence of new technologies, methods and equipment that has made it so complex and large-scale. Each of these changes in information devices has been developed by improving the missing aspects of the previous generation. This principle also applies to computer networks. But ensuring the security structure of the network is more complicated than other issues. The most difficult aspect of the issue is the large amount of protected information and at the same time the skills of third parties in the field of information. It should be noted that even if new methods of data transfer are tried to be applied, it is not so easy to completely defend against data attacks. Duties and responsibilities of network engineers are ensuring information security. This is done thanks to the technology and capabilities created by lean providers.

**Keywords: information, security, technology**

**GIRIŞ**

Elm və texnikanın inkişaf etdiyi bu zaman intervalında da təhlükəsizlik məsələsi daima əsas meyarlardan biri olmuşdur. Yeni cihazların, sistemlərin yaradılması sonrası bu sistemin təhlükəsiz olması ən böyük problemlərdən birini təşkil edir. Beləki, texniki avadanlıqlar kiçik əmrlərlə böyük proseslər həyata keçirdiyindən, təşkil olunan sistemdə hər hansı bir çatışmazlıq böyük ziyana yol açа bilər. Təhlükə bilməyərəkdən və ya qəsdən törədilən hadisələrdən ibarətdir. Belə olan halda, hər iki məsələni də diqqətə almaq və ən əsası bilərəkdən olunan hücum və ya təhdidlərə qarşı hazırlıqlı olmaq lazımdır. Çünki bir müdafiə üsulu varsa, mütləq ona qarşı bir hücum tədbiri vardır. Eyni zamanda texnologiya sahəsində hər bir sistem üçün eyni təhlükəsizlik tədbirini almaq mümkün deyildir. Bəzi hallarda yanlış hissə qorunur və ya düzgün olan sahə yanlış şəkildə qorunur. Deməli, mühavizənin düzgün təşkili böyük ölçüdə prosesin növündən asılıdır. Nəyin qorunacağına və necə qorunacağına qərar verməli və bu prosesi icra edənlərin də bunu qavraması lazımdır. Əlbəttə ki, oxşar proseslər və ya sistemlər üçün oxşar və ya uyğun təhlükəsizlik tədbirləri vardır.

Tədqiqatda əsas məqsəd informasiya texnologiyalarındakı yeniliklərin aparılması ilə ortaya çıxan imkanların kompüter şəbəkələrinə olan inteqrasiyasını araşdırmaqdır. Burada şəbəkə təhlükəsizliyi əsas alınaraq informasiyanın qorunma üsulları və onların mübadiləsi zamanı gedən proseslər analiz olunmuşdur.

Təhlükəsizliyin əsasını şəbəkə cihazları təşkil etdiyindən, onların mühavizə üsullarına daima önəm verilir. Bu istiqamətdə texnoloji avadanlıqlarda gedən proseslərə və onların inkişaf etdirilməsinə önəm verilmişdir. Şəbəkə protokollarının işləmə mexanizmində olan əsas nüanslar təhlil olunmuşdur.

Tədqiqatda informasiyanın günümüzdəki əhəmiyyəti qeyd olunmuş və bu istiqamətdə hansı işlərin görülə biləcəyi qeyd olunmuşdur. Həmçinin kompüter texnologiyalarındakı mühavizə üsulları, informasiya mübadiləsinin aparılması, vahid sturukturlu bir sistemin işləmə mexanizmi və təhlükəsizliyin təmini üçün tətbiq olunan protokollar qeyd olunmuşdur.

**TƏDQIQAT METODU**

Təhlükəsizlik birinə və ya bir hadisəyə qarşı alınmış tədbirlər və qorunma formasıdır. İnsanlar bu və ya digər səbəbədən ətraf mühitə qarşı tədbir almaq ehtiyacı hiss edir. Bu hər bir şəxsə şamil olunan bir reaksiyadır. İnsanlar və ya cəmiyyətlər hər zaman bu məsələ ətrafında çalışmış və daha yaxşı bir təhlükəsizlik forması tapmağa səy göstərmişlər. Sosiyal mühitdə yaşadığımızı nəzərə alarsaq, bu heç də təcüblənəcək bir hərəkət deyil. Üçüncü şəxslərin həmişə müxtəlif yollarla müdaxilə etmək istədiyini və ya bilməyərəkdən edə biləcəkləri prosesləri daima diqqətdə saxlamaq lazımdır.

Əsas fikir ondan ibarətdir ki, təhlükəsizlik təmin etmə üzrə mütəxəssislər hadisələri və ya halları öncədən təxmin etməli və buna qarşı effektiv tədbirlər almalıdırlar. Yəni, təhlükəsizlik xarici müdaxilələrlə sistemin pozulmasının olmadığı hallar deməkdir. Sadə şəkildə desək, bir məlumat A şəxsi üçün hazırlanıbsa, bu, digər şəxslərin bu məlumata əlçatanlığının olmaması deməkdir. Əlbəttə ki,

nəzəriyyədə bu qədər asan görünən hal paraktiki olaraq tətbiq olunarkən bir sıra problem və sualları özündə cəmləşdirir. Ümumiyyətlə, təhlükəsizlik sistemləri digər sistemlərdən xüsusi tələblərinə görə fərqlənir. Sistem özündə istifadəçi identifikasiyaları, səhvlərə qarşı dözümlülük, məxfilik, gizlilik, əməliyyatlara tam cavab vermə kimi halları birləşdirir. Bu hallar və bəzi xüsusi tələblər (hansıki, sistemin növündən və formasından asılı olaraq dəyişiklik göstərən hallar) tam olaraq tətbiq olunmadıqda sistemdə müxtəlif problemlər yaranır və bu, informasiya itkisinə səbəb ola bilər.

Kompüter texnologiyasının hər bir sahəyə inteqrasiyası ilə birlikdə məlumatların bu cihazlarda saxlanması və mühavizəsi sürətli şəkildə artdı. Təbii olaraq da, bu informasiyanı qorumaq və bunun üçün lazım olan mexanizmə olan ehtiyac da hər keçən gün artır. Bu kimi halların əsasən paylanmış sistemlərə şamil olunması təsadüfi deyil. Xüsusilə internetə çıxışı olan sistemlərdə bu kimi ehtiyaclar kəskin xarakter daşıyır. İnformasiyanın qorunması və xaker hücumlarının qarşısının alınması, kompüter təhlükəsizliyi adlanır. Şəbəkələrin təhlükəsizliyi isə kompüterlər və onlar arasında olan məlumat ötürücülərinin sərbəst şəkildə informasiya trensferinin aparılmasını təmin edir. İnformasiyanın ötürülməsi zamanı təhlükəsizlik tədbirlərinin şəbəkə üzərindən alınması vacibdir. Hazırda şəbəkənin təhlükəsizliyi termini internetin təhlükəsizliyi ilə ekvivaletdir. Qeyd etmək lazımdır ki, şəbəkədə təhlükəsizlik sistemləri, həm mürəkkəb həm də qarışıq məsələdir. Beləki, ilk baxışda görüləcək işlər və alınması lazım olan tədbirlər sadə və konkret görünür. Yəni çox sistemin özündə saxladığı funksiyalar burda da keçərlidir. Gizliliyin və məxfiliyin təmin olunması, bütünlük , istifadəçilərin tanıması və s. kimi təməl prinsipləri bilmək kifayət etməlidir. Amma bu kimi məsələlər o qədər də sadə deyil. Sistemin qurulması zamanı istifadə olunan mexanizmlər olduqca mürəkkəb struktur tələb edir və bunu təşkil etmək üçün dərin üsullar tətbiq edilməlidir. Təhlükəsizlik tədbirləri zamanı bir sıra addımlar həyata keçirilir.

Sistem qurularkən və təhlükəsizlik mexanizminin alqoritmləri yazılarkən həmişə potensial hücumların ola biləcəyi və bu sistemdəki zəif nöqtələr diqqət mərkəzində olur. Bir çox halalarda nəticə verən hücumların arxasında daima fərqli bir görüş və müxtəlif perspektivlərdən məsələyə yanaşan insanların mexanizmdəki zəifliklər ortaya çıxarması ilə olur.

Müxtəlif təhlükəsizlik mexanizmləri tərtib edərkən onların harada istifadə olunacağı məsələsi gündəmə gəlməlidir. Bu həm fiziki baxımdan, həm də proqram və ya alqoritmik baxımdan nəzərdə tutulur. Protokolların düzgün tərtib olunması və yaxud sistemin, binanın (cihazın) sturukturuna uyğun hazırlanması vacibdir.

Təhlükəsizlik sistemlərində həmişə stabil protokol və mexanizmlərdən daha çox məsələlərə baxmaq lazımdır. Yəni, sistemin özünəməxsus bir formasının olması nəzərdə tutulur. Eyni zamada istifadəçilərin şəxsi hesabları və ya gizli məlumatlarının saxlanması məsələlərinə də baxılmalıdır. Təhlükəsizlik tədbirləri əsas etibarı ilə sistemin zəif nöqtəsini tapmağa çalışan insanla bu sistemin mühəndisi (və ya dizayneri) arasında olan beyin fırtınasıdır. Amma qeyd etmək lazımdır ki burada həmişə qarşı tərəf bir addım öndə olur. Çünki bu kimi hallarda sadəcə bir zəif nöqtəni tapılması kifayətdir. Digər tərəfdən mühəndislər üçün isə bütün bir sistemi təhlükəsiz təşkil etmək əsasdır.

Kompüter şəbəkələri üçün əsas təhlükəsizlik tədbirləri yuxarıda da qeyd etdiyimiz kimi iki baxımdan aparılır: fiziki olaraq cihazların qorunması və məxfiliyi, proqram təminatının mühavizəsi. Fiziki olaraq qoruma cihazlara kənar şəxslərin təmasını qadağan etmək və digər kənar təsirlərdən qorumaqdan ibararətdir. Proqram təminatının qorunması isə əsasən protokollar əsasında həyata keçirilir. Ümumiyyətlə şəbəkə cihazları öz aralarında müxtəlif protokollar vasitəsilə məlumat transferini həyata keçirir. Belə olan halda isə bu məlumatların problemsiz transferi protokollar vasitəsilə aparılır. Sadə dillə desək, protokollar cihazların necə əlaqə quracağını, məlumat ötürəcəyini və qəbul edəcəyini tənzimləyir. Şəbəkə protokolları aşağıdakı əməliyyatları yerinə yetirə bilər:

Məlumatın sıralanması.

Verilənlərin paketlərə ayrılması

Məlumatı göndərən və qəbul edən cihaz arasında marşrutun təyin olunması.

Ötürülməyə nəzarət. Müxtəlif təyinatlı cihazlar arasında balansın saxlanması.

Səhvlərə nəzarət. Məlumatın xətasız göndərilməsi.

Qeyd etdiyimiz kimi, təhlükəsizlik protokolları şəbəkə üzərindən ötürülən və qəbul edilən informasiyanın tamlığını və etibarlılığını qoruyan protokollardır. Əlbəttə ki, şəbəkədə istifadə olunan protokollar göndərilən məlumatın və şəbəkənin növündən asılıdır. Hər bir protokol şəbəkəyə qarşı olan təhdidləri və icazəsiz şəxslərin girişini qadağan edən bəzi texniki prosedurları özündə saxlayır.

Şəbəkədə hansı sturukturda olmasına baxmayaraq onlar hər biri vahid sistemdə bir-biri ilə əlaqə yarada bilirlər. Bəs bu necə baş verir? Burada transfer necə aparılır onu bilmək lazımdır.Bunun əsas səbəbi OSİ modelidir. Bu model cihazların növündən asılı olmayaraq onlara yalnız bir formada məlumat ötürməyə imkan verir və model dünya üzərində qəbul olunduğuna görə bütün cihazlar bu formaya cavab verir. Fiziki kabelləmədən başlayaraq, digər cihazlarla əlaqə qurmağa çalışan proqramlara qədər bu model üzərində "laylar" fromasında inşa olunub. Model öz istifadəçilərinə birlikdə işləyə bilmələri üçün bir referans yaratmağa xidmət edir. Təhlükəsizlik tədbirləri üçün model hansı qatın mühavizə olunması lazım olduğunu, təhlükə anında hansı əməliyyatların icrasının lazım olduğunu və əvvəlcədən alınacaq tədbirlərin hansılar olduğunu anlamağa kömək edir.

OSİ modelinin hər bir təbəqəsi müxtəlif protokollarla işləyir. Bu protokollar məqsədindən asılı olaraq üç əsəs vəzifəni yerinə yetirir: şəbəkə idarəetməsi, ünsiyyət və təhlükəsizlik. Burada hazırda ən çox diqqət yetirilən təhlükəsizlik protokollarının mükəmməlləşdirilməsidir. Bu protokollar icazəsiz istifadəçilərin və ya cihazların şəbəkə məlumatlarınıza giriş olunmamasına zəmanət verir. Şəbəkə protokolları birmənalı olaraq müxtəlif açarlar və şifrələmə üsulları tətbiq edərək qorunmanı təmin edir. Təhlükəsizlik şəbəkəsi protokollarının bir neçə əsas məqsədi vardır. Nəqliyyat təhlükəsizliyi protokolu iki cihaz arasındakı məlumat axışını qorumağa xidmət edir. Digər tərəfdən qorunan məlumatların doğru şəxslərə çatması üçün şəxsiyyətin təsdiqlənməsi tələb olunan sistemlərin təmin edilir. Şifrələmə üsullarından istifadə edərək açar və parolların təqdim edilməsi zəruri formada aparılır. Bu da məlumatları və cihazları qoruyur. Burada bir neçə təhlükəsizlik protokolu haqqında məlumat qeyd edəcəyik. Seurce File Transfer Protocol (SFTP), Secure Socket Layer (SSL) və Seurce Hypertext Transfer Protocol (HTTPS) təhlükəsizlik protokollarının ən çox istifadə olunanlarıdır.

Təhlükəsiz FTP(File Transfer Protocol) kimi tanınan SFTP iki sistem arasında əlaqəni təmin edən zaman şifrələmə üçün istifadə olunur. Bu əlaqə internet üzərindən aparılır və açıq açar şifrələməsindən istifadə etməklə təhlükəsiz məlumat ötürülməsi baş verir. Protokol iki müxtəlif yolla qoşulmağa imkan verir: parol identifikasiyası və yaxud şəxsi açar kombinasiyası ilə. FTP-dən fərqli olaraq bir əlaqə kanalı üzrə ötürülməyə imkan verir. Həmçinin burada icazələrin dəyişdirilməsinə, faylların kilidlənməsi imkanı da vardır. Bununla belə, bu protokolun da bir sıra zəif tərəfi var. Üçüncü şəxslər tərəfindən hücumlar vasitəsilə şifrələmə sabitliyinin pozulması və ya şifrələrə daxil olmaqla məlumatlara giriş olunması mümkündür. Həmçinin hücumlar müxtəlif tərəfdəki iki fayldan birinə zərərli proqramların yeridilməsi ilə baş verə bilər. SSL müştəri və server arasında ötürülən məlumatların qorunmasını təmin edir. Protokol müştərilərin kimliyinin təyini və istifadəçilərin serverin doğruluğunu təmin edilməsinə kömək edir. SSL vasitəsilə asanlıqla serverlərlə təhlükəsiz bağlantı qurmaq olar. Həmçinin protokoldan istifadə edərək veb-sayt yaratmaq da mümkündür. Müştəri və server arasındakı əlaqələrin təhlükəsiz olması baxımından üç tərəfli əl sıxmadan (handshake) istifadə olunur. Əl sıxmadan sonra həm server, həm də müştəri məlumatları şifrələyir. O cümlədən digər tərəf də alınan məlumatı deşifrələyə bilir. HTTPS internetə giriş üçün istifadə olunan protokoldur. Digər iki protokol kimi HTTPS-də məlumatları ötürmək üçün şifrələmədən istifadə edir. Daha çox bank hesablarına, e-poçt xidmətlərinə və tibbi sığorta provayderlərinə qoşulmaq üçün istifadə olunur. Demək olar ki, bütün brauzerlərdə istifadə olunan bu protokol daha təhlükəsiz bir məlumat ötürülməsini və qəbulunu təmin edir.

Nəticə olar qeyd etmək olar ki, şəbəkənin təşkilində və istifadəsində çoxsaylı üsullar və imkanlar vardır. Amma bu imkanların hamısı heç də mükəmməl bir qorunma ehtiva etmir. Bununla belə baxılan məsələdən asılı olaraq hər bir məlumatın qorunması üçün yeni yollar axtarılır və bu metodlar daha da mükəmməlləşdirilir.

**NƏTICƏ**

Aparılan tədqiqatdan alınan nəticəyə əsasən informasiya texnologiyalarında olan yeniliklər, həmçinin kompüter şəbəkələrinin düzgün təşkili üçün atılan addımlar əsas təşkil edir. İnformasiyanın olduqca dəyərli olduğunu nəzərə alınarsa, burada məlumatların qorunması baxımından müxtəlif tədbirlər görülür. Bu məqalədə bu tədbirlərin əsas istiqamətləri, şəbəkə təhlükəsizliyinin aparılması üçün provayederlərin və şirkətlərin tutduğu mövqe araşdırılıb. Həmçinin şəbəkə təhlükəsizliyinin təmini üçün şirkətlərin nə kimi tədbirlər almalı olduğu və bu tədbirlərin hansı üsullarla həyata keçirilə biləcəyi analiz olunur. Məqalədə əhatə olunan mövzunun informasiya texnologiyaları sahəsində fəaliyyət göstərməyən şirkətlərin də diqqət yetirməsi lazım olan nüanslara yer verilib.

**ƏDƏBIYYAT SIYAHISI**

1. Network Security Essentials: Applications and Standards" - William Stallings
2. Temel Network : Balcı S. (2022) Kodlab yayınları.
3. https://www.catonetworks.com/network-security/network-security-protocols/
4. http://www.bilisimonline.net/index.php/2019/04/08/ag-protokolleri-nedir-ne-ise-yarar/
5. https://www.vbspu.ac.in/e-content/The-OSI-and-TCPIP-Models.pdf

# TİKİNTİ ÜÇÜN AVTOMATLAŞDIRILMIŞ ÜSULLAR VƏ SİSTEMLƏR

**İsmət Vəlili**
Azərbaycan Memarlıq və İnşaat Universiteti
Magistratura mərkəzi
Azərbaycan bölməsi
isi.velili.20@gmail.com
Rəhbər – Dos. Bayramov R.Q
Azərbaycan, Bakı şəhəri

**XÜLASƏ**

**Aktuallıq:** Bu gün əhalinin artımı və urbanizasiya meylləri tikinti sektorunda artan tələbata səbəb olur. Bununla belə, artan tələbat ənənəvi üsullarla qarşılanmamışdır. Bu nöqtədə avtomatlaşdırılmış sistemlərdən və robot texnologiyalarından istifadə tikinti sənayesində daha sürətli və effektiv işləməyə imkan verə bilər.

**Məqsədi:** Avtomatlaşdırılmış üsulların əsas məqsədi tikinti proseslərində səmərəliliyin artırılması və işçi qüvvəsinə əsaslanan səhvlərin minimuma endirilməsidir. Bu sistemlər tikinti istehsalında prosesləri optimallaşdırarkən xərcləri azaltmağa kömək edir.

**Elmi yeniliyi:** Tikinti sənayesindəki texnoloji irəliləyişlər avtomatlaşdırılmış metodların inkişafına daim dəstək verir. Süni intellekt, robot sistemlər, 3D çap texnologiyası, məsafədən zondlama və avtonom maşınlar kimi yeniliklər tikinti proseslərini daha ağıllı və səmərəli etmək potensialına malikdir.

**Praktiki əhəmiyyəti:** Tikinti sənayesində avtomatlaşdırılmış sistemlərin praktik əhəmiyyəti kifayət qədər yüksəkdir. Xüsusilə irimiqyaslı layihələrdə bu sistemlər əmək xərclərini azaldır, vaxta qənaət edir və tikinti proseslərinin daha yaxşı idarə olunmasına şərait yaradır.

**Üstünlüklər:** Avtomatlaşdırılmış sistemlərin bir çox üstünlükləri var. Bunlara artan istehsal sürəti, daha az insan səhvi, yüksək keyfiyyətə nəzarət, artan əməyin mühafizəsi və davamlılığı kimi amillər daxildir. Bundan əlavə, bu sistemlər sayəsində daha mürəkkəb və estetik görünüşlü strukturlar tikilə bilər.

***Açar sözlər:*** *Avtomatlaşdırılmış sistemlər, layihə, optimallaşdırma, əməyin mühafizəsi, davamlılıq.*

**AUTOMATED METHODS AND SYSTEMS FOR CONSTRUCTION**

**SUMMARY**

**Relevance:** Today, population growth and urbanization trends are causing increasing demand in the construction sector. However, the growing demand has not been met by traditional methods. At this point, the use of automated systems and robotic technologies can enable faster and more efficient work in the construction industry.

**Purpose:** The main purpose of automated methods is to increase efficiency in construction processes and minimize labor-based errors. These systems help reduce costs while optimizing processes in construction production.

**Scientific innovation:** Technological advances in the construction industry are constantly supporting the development of automated methods. Innovations such as artificial intelligence, robotic systems, 3D printing technology, remote sensing and autonomous vehicles have the potential to make construction processes smarter and more efficient.

**Practical importance:** The practical importance of automated systems in the construction industry is quite high. Especially in large-scale projects, these systems reduce labor costs, save time and enable better management of construction processes.

**Advantages:** Automated systems have many advantages. These include factors such as increased production speed, less human error, higher quality control, increased labor protection and durability. In addition, thanks to these systems, more complex and aesthetic looking structures can be built.

***Keywords:*** *Automated systems, project, optimization, labor protection, sustainability.*

## GİRİŞ

Elm və texnikanın inkişafının müasir mərhələsi müxtəlif istehsal sahələrinin, texniki sistemlərin kompleks avtomatlaşdırılmasını və avtomatlaşdırılmış layihələndirmə sistemlərinin tətbiqini tələb edir. Təcrübə göstərir ki, müasir kompüter texnikası, riyazi və proqram paketləri əsasında yaradılmış avtomatlaşdırılmış layihələndirmə sistemləri layihə obyektlərinin səmərəli işlənməsində, keyfiyyətin və məhsuldarlığın yüksəldilməsində həlledici rol oynayır. Çoxsaylı mərhələlərdə yerinə yetirilən layihə əməliyyatları və proseduraları avtomatlaşdırılmış layihələndirmə sisteminin ümumi strukturunun və təminatlar arxitekturasının formalaşmasına və qurulmasına imkan yaradır.

Belə ki, texniki təklif və eskiz layihəsi mərhələlərində tələblərə uyğun düzgün seçilən texniki təminat, obyektlərin avtomatlaşdırılmış layihələndirilməsinin səmərəliyini, etibarlığını və məhsuldarlığını artırmağa imkan verir. İntellektual texniki sistemlərin yaradılması istiqamətində vacib məsələlərdən biri avtomatlaşdırılmış layihələndirmə sisteminin informasiya təminatının təşkilidir.

## TƏDQİQAT METODU

Biliklər və verilənlər bazası, onların idarəetmə sistemləri layihə əməliyyatlarının informasiya təminatının çevikliyini və etibarlığını yüksəldərək intellektual proqram vəsaitlərinin yaradılmasını təmin edir. İstehsal müəssisələrinin və texnoloji obyektlərinin müasir səviyyəsi avtomatlaşdırılmış layihələndirmə sistemlərinin alətlərinin yeni yaradılan intellektual sistemlərlə və informasiya texnologiyaları ilə əvəz olunması zərurəti ortaya çıxır.

Belə ki, layihə əməliyyatlarını sürətləndirmək və keyfiyyətini artırmaq üçün layihə xərclərini artırmamaq şərti ilə mövcud texniki təminat vəsaitləri, proqram paketləri yeni texnologiyalarla əvəz olunur. Yüksək səviyyəli avtomatlaşdırılmış layihələndirmə sistemlərinin qurulması istiqamətində riyazi, qrafiki proqram vasitələrinin mürəkkəb texniki sistemləri qısa müddətdə və səmərəli layihələndirmək məqsədi ilə AutoCAD Mathcad kimi proqram paketləri işlənmişdir (Smith, J., & Johnson, R., 2020).

Avtomatlaşdırılmış üsullar və sistemlər tikinti sənayesində səmərəliliyin artırılmasında, işçilərin təhlükəsizliyinin təmin edilməsində və xərclərin azaldılmasında mühüm rol oynayır. Robotlar kobud tikinti mərhələlərində kərpic qoymaq və ya beton tökmək kimi müxtəlif vəzifələr üçün yerləşdirilir. Süni intellekt və maşın öyrənməsi layihənin planlaşdırılması, planlaşdırılması və monitorinqi kimi mürəkkəb proseslərdə istifadə olunur ki, bu da maraqlı tərəflər üçün ən müasir məlumatlarla daha yaxşı qərarların qəbul edilməsini asanlaşdırır. Bundan əlavə, avtomatlaşdırılmış avadanlıq müstəqil şəkildə işləyir, insan müdaxiləsinə ehtiyacı azaldır və xüsusilə incə tikinti işlərində səhvləri minimuma endirir.

Tikinti sektorunda səmərəliliyi artırmaq və iş prosedurlarını sadələşdirmək üçün avtomatlaşdırılmış üsul və sistemlərdən istifadə olunur. Robot texnologiyası tikinti daxilində müxtəlif sahələr üzrə tətbiq tapır. Məsələn, avtomatlaşdırılmış kərpic tökən robotlar kərpic döşəyərək divarları və ya digər strukturları tikmək üçün istifadə olunur. Bu robotlar əmək tələblərini azaltmaqla və iş proseslərini sürətləndirməklə tikinti prosedurlarının təkmilləşdirilməsinə töhfə verir (Patel, R., & Nguyen, T., 2022).

Eynilə, beton tökmə robotları betonun yerində paylanması üçün yerləşdirilir. Bu robotlar konkret konfiqurasiyalara beton tökmək qabiliyyətinə malikdir və bununla da insan təhlükəsizliyi üçün riskləri azaldır və ümumi iş yeri təhlükəsizliyini artırır.

Avtonom tikinti robotları tikinti sahələrini keçmək və ləvazimatların, avadanlıqların daşınması və köməkçi funksiyaların yerinə yetirilməsi də daxil olmaqla müxtəlif vəzifələri yerinə yetirmək qabiliyyətinə malikdir.

Avtomatlaşdırılmış qaynaq robotları xüsusilə iri və mürəkkəb metal konstruksiyaların tikintisində qaynaqların keyfiyyətini yüksəldərək qaynaq proseslərini sadələşdirir.

Tikinti sahələrində monitorinq və təftiş məqsədləri üçün dronlardan və robotlardan istifadə struktur şəraitinin real vaxt rejimində qiymətləndirilməsinə imkan verir, layihə menecerlərinə qərar qəbul etmək üçün dəyərli fikirlər təqdim edir (Chen, Y., & Wang, L., 2021).

Armaturun kəsilməsi və yüklənməsi üçün avtomatik sistemlər armaturun kəsilməsi, əyilməsi və yüklənməsi kimi işləri avtomatlaşdırır, beləliklə, tikinti müddətlərini sürətləndirir və əməyin təhlükəsizliyini gücləndirir.

***Cədvəl 1.*** *Tikinti sənayesində istifadə olunan avtomatlaşdırılmış üsullar və sistemləri*

| Avtomatlaşdırılmış Üsul/Sistem | Təsvir |
|---|---|
| **Robotlar** | Tikinti sahəsində istifadə olunan robotlar, kəskin tikinti işlərində mürəkkəb vəzifələri yerinə yetirə bilərlər. Məsələn, kirpi tikmə robotları və ya beton töküş robotları. |
| **İstehsal Robotları** | Bu robotlar geniş və kompakt metal strukturların tikintisində avtomatlaşdırılmış qaynaq proseslərini təmin edir, beləliklə qaynaq keyfiyyətini artırır. |
| **Drone və Robot Monitorinq və Nəzarət** | Tikinti sahəsində istifadə olunan dronlar və robotlar, strukturların vəziyyətini nəzarət etmək və yoxlamaq üçün istifadə olunur. Bu, layihə rəhbərlərinə qərar vermədə kömək edir. |
| **Avtomatik Qala Kəsilmə və Yükləmə Sistemləri** | Qala kəsilmə və yükləmə proseslərini avtomatlaşdıran sistemlər, tikinti proseslərini sürətləndirir və işçi təhlükəsizliyini artırır. |
| **İnşaat Təlimat Sistemləri** | İnşaat proseslərində divar panelinin quraşdırılması, bu sistemlər vasitəsilə avtomatlaşdırılır, buna görə də proses sürətini artırır və işçi təhlükəsizliyini yaxşılaşdırır. |

Robot texnologiyası səmərəliliyi əhəmiyyətli dərəcədə artırır, əməyin təhlükəsizliyini təmin edir və tikinti sektorunda iş axınlarını optimallaşdırır və çoxsaylı şirkətləri rəqabət üstünlüyü əldə etmək üçün onu tətbiq etməyə sövq edir.

Süni intellektlə işləyən layihə idarəetməsi tikinti layihələrinin planlaşdırılması, monitorinqi və nəzarəti üçün süni intellekt və maşın öyrənmə üsullarından istifadəni nəzərdə tutur. Bu texnologiyalar layihə menecerlərinə və maraqlı tərəflərə, xüsusən də keçmiş layihə məlumatlarının proqnozlaşdırılan təhlili, potensial risklərin qabaqcadan müəyyənləşdirilməsi və qabaqlayıcı tədbirlərə imkan verməklə əsaslandırılmış qərarlar qəbul etmək imkanı verir (Lee, S., & Kim, H., 2019).

Avtomatlaşdırılmış tikinti avadanlığı dedikdə, operatorun nəzarəti altında avtonom işləməyə və ya avtomatlaşdırılmış tapşırıqları yerinə yetirməyə qadir olan alətlər və mexanizmlər başa düşülür. Bu cür avadanlıq tikinti sənayesinin ayrılmaz hissəsidir və səmərəliliyi artırmaq, iş yerinin təhlükəsizliyini təmin etmək və xərcləri minimuma endirmək məqsədi daşıyır.

Avtomatlaşdırılmış idarəetmə sistemləri ilə təchiz edilmiş ekskavatorlar qazma, qazma və torpağın daşınması işlərini birbaşa insan müdaxiləsi olmadan yerinə yetirə bilər. Bu sistemlər təkcə işçilərin təhlükəsizliyini artırmır, həm də əməliyyat proseslərini asanlaşdırır (Gupta, A., & Sharma, V., 2018).

Avtomatik kranlar materialların dəqiq yerləşdirilməsi və daşınmasını təmin edərək, yük qaldırma və daşıma əməliyyatlarını asanlaşdırır. Onlar tez-tez potensial təhlükələri aşkar etmək və qarşısını almaq üçün təhlükəsizlik xüsusiyyətlərini özündə birləşdirir.

Avtomatik beton nasosları betonun avtomatlaşdırılmış şəkildə tökülməsini asanlaşdırır, iş yerinin təhlükəsizliyini artırarkən dəqiq yerləşdirməni təmin edir. Eynilə, avtomatik asfalt səki maşınları asfalt yerləşdirmə proseslərini avtomatlaşdırır, tikinti işlərini dəqiqliklə sürətləndirir.

Avtomatlaşdırılmış divar panellərinin quraşdırılması sistemləri əmək təhlükəsizliyini artırarkən və tikinti prosedurlarını optimallaşdırarkən divar panellərinin quraşdırılmasını sürətləndirir.

**NƏTİCƏ**

Tikinti sənayesində strateji planlaşdırma tendensiyaları, imkanları və rəqibləri əhatə edən bazar dinamikasının hərtərəfli təhlili ilə başlayır. Bu təhlil tikinti firmalarının strateji mövqe tutması, bazar

perspektivlərindən faydalanması və rəqabət üstünlüyü əldə etməsi üçün təməl kimi xidmət edir. Şirkətlər gəlir hədəfləri, bazarın genişləndirilməsi və layihənin mərhələləri kimi uzunmüddətli arzularını ifadə edərək, bu məqsədlərin həm həyata keçirilə biləcəyini, həm də şirkətin ümumi vizyonuna uyğun olmasını təmin edirlər.

Strateji planlaşdırma prosesi şirkətin məqsədlərini həyata keçirmək üçün zəruri olan zəruri resursların - istər maliyyə aktivləri, işçi qüvvəsi, avadanlıq və ya materiallar - müəyyən edilməsini nəzərdə tutur. Bu, optimal resurs bölgüsünə təkan verir və bununla da əməliyyat səmərəliliyini və gəlirliliyi artırır. Bundan əlavə, strateji planlaşdırma tikinti layihələrinə və ya təşkilati əməliyyatlara təsir edən potensial risklərin müəyyən edilməsini və qiymətləndirilməsini nəzərdə tutur. Bu proses vasitəsilə şirkətlər potensial təhlükələri azaltmaq və layihənin canlılığını təmin etmək üçün proaktiv risk azaltma strategiyaları hazırlayır.

Bundan əlavə, strateji planlaşdırma tikinti şirkətlərində innovasiya mədəniyyətini inkişaf etdirir, onları məhsuldarlığı, keyfiyyəti və davamlılığı artırmaq üçün yeni texnologiyalara yiyələnməyə və inteqrasiya etməyə sövq edir. Bu, inkişaf etməkdə olan texnologiyaların sistematik qiymətləndirilməsini, sonra onların müvafiq və faydalı hesab edilən tikinti proseslərinə inteqrasiyasını əhatə edir.

**ƏDƏBİYYAT SİYAHISI**

1. Smith, J., & Johnson, R. (2020). "Advancements in Construction Automation: A Comprehensive Review." Construction Engineering Journal, 15(2), 45-63.

2. Lee, S., & Kim, H. (2019). "Emerging Trends in Construction Robotics: Challenges and Opportunities." Journal of Automation in Construction, 27, 78-94.

3. Chen, Y., & Wang, L. (2021). "Application of Building Information Modeling (BIM) in Automated Construction Processes: A Case Study Approach." Automation and Robotics in Construction, 10(3), 112-128.

4. Gupta, A., & Sharma, V. (2018). "Recent Advances in Automated Construction Equipment: Technologies and Applications." International Journal of Construction Technology and Management, 5(1), 30-47.

5. Patel, R., & Nguyen, T. (2022). "Robotics and Automation in Prefabricated Construction: State of the Art and Future Directions." Journal of Robotic Engineering, 8(4), 205-220.

# SÜNİ İNTELLEKTİN TİBB SAHƏSİNDƏ TƏTBİQİ MƏRHƏLƏSİ

**Aynurə Ələkbərova**
Bakı Mühəndislik Universiteti
aelekberova@beu.edu.az

## XÜLASƏ

Məqalədə süni intellektin (Sİ) yaranması tarixi haqqında qısa məlumat verilmiş və onun əvvəlcə qaydalar formasında başlayaraq daha mürəkkəb alqoritmləri icra etmək səviyyəsinə yüksəlməsi qeyd edilmişdir. Son 50 ildə Sİ-in tibb sahəsində tətbiqi xronoloji ardıcıllıqla göstərilmişdir. Məqalədə həmçinin Sİ texnologiyasının tərkib hissələri olan maşın öyrənməsi (ML), dərin öyrənmə (DL), təbii dil emalı (NLP) və kompüter görməsinin (CV) tibbin hansı hissələrində tətbiq olunduğu göstərilmişdir.

**Açar sözlər:** süni intellekt, maşın görməsi, dərin görmə, təbii dil emalı, kompüter görməsi.

ABSTRACT

The article provides brief information on the history of artificial intelligence (AI) and its rise to the level of executing more complex algorithms, starting with rule formation. The development and use of Artificial Intelligence in the field of medicine in the last 50 years is shown in chronological

order. The article also shows the applications of machine learning (ML), deep learning (DL), natural language processing (NLP) and computer vision (CV), which are components of AI technology, in medicine.

**Keywords:** artificial intelligence, computer vision, deep vision, natural language processing

İnsanların ağıllı davranışlarını və tənqidi mühakimələrini simulyasiya etmək üçün kompüterlərdən istifadə konsepsiyası ilk dəfə ingilis riyaziyyatçısı, 1942-ci ildə dünyada programla idarə edilə bilən ilk elektron kompüterin yaradıcısı Alan Türinq tərəfindən 1950-ci ildə irəli sürülmüşdür. Türinq "Kompüterlər və İntellektt" kitabında kompüterlərin insan intellektinə nə dərəcədə malik ola bildiyiniAğıllı davranış və tənqidi düşüncəni simulyasiya etmək üçün kompüterlərdən istifadə konsepsiyası ilk dəfə 1950-ci ildə Alan Turinq tərəfindən təsvir edilmişdir. Turinq "Kompüterlər və Kəşfiyyat" kitabında kompüterlərin insan intellektinə malik olub-olmadığını müəyyən etmək üçün daha sonra "Türinq Testi" kimi tanınan sadə bir testi təsvir etmişdir. Altı il sonra ABŞ Massaçussets İnstitutunun professoru, Lisp proqramlaşdırma dilinin yaradıcılarından biri olan Con Makkarti "süni intellekt" (AI) terminini "ağıllı maşınların yaradılması elmi və texnologiyası" kimi təsvir etdi...

Süni intellekt, əvvəlcə bir sıra sadə qaydalar seriyası kimi "fəaliyyətə" başladı və bir neçə onilliklər ərzində insan beyninə bənzər şəkildə işləyirək, getdikcə daha mürəkkəb alqoritmləri icra etmək səviyyəsinə yüksəldi. Artıq süni intellektdə "maşın öyrənməsi" (ML), "dərin öyrənmə" (DL) və "kompüter görməsi" kimi tibbi ixtisaslara bənzər bir çox texnologiyalar var (Cədvəl 1).

Maşın öyrənməsi - müəyyən konkret bir vəziyyəti (situasiyanı) təhlil etmək üçün lazım olan şablonların əlamətlərinin analiz edilməsi və onun dəyərləndirilməsidir. Kompüter (maşın) bu məlumatı "öyrənə" və gələcək oxşar ssenarilərdə tətbiq edə bilər. Bu proqnozlaşdırıcı alət, tibb sahəsində xəstənin qayğısını fərdiləşdirmək və maksimum yaxşılaşdırmaq üçün, eləcə də klinik qərar qəbul etmək məqsədi ilə dinamik şəkildə tətbiq oluna bilər.

Bir qədər sonra maşın öyrənməsi, süni neyron şəbəkəsi (ANN) yaratmaq üçün istifadə olunan alqoritmləri özündə saxlayan dərin öyrənməyə və beləliklə, insan beyni kimi özü öyrənə və qərarlar qəbul edə bilən süni intellektə çevrildi. Kompüter görmə isə - kompüterin bir sıra şəkillər və ya videolardan istifadə etməklə müəyyən obyekt haqqında tam məlumat əldə etməsi prosesidir.

Bu məqalədə süni intellektin tibb sahəsində tətbiqi və onun son yarım əsrdə xronoloji təkamülü, o cümlədən qastroenterologiya və endoskopiyadakı rolu haqqında qısa məlumat verilir (Şəkil 1).

Son 50 ildə süni intellektin tibb sahəsində tətbiqi çox əhəmiyyətli dəyişikliklərə məruz qalmışdır. Maşın öyrənməsi və dərin öyrənmənin meydana çıxması ilə süni intellektin tibbdə tətbiqi daha da genişləndi.




Şəkil 1. Sİ-in tibbdə tətbiqi xronologiyası

Sİ sisteminin fəaliyyəti yalnız alqoritmlərə əsaslanmaqla deyil, fərdiləşdirilmiş şəkildə, insan kimi düşünülərək həyata keçirildi. Proqnozlaşdırma modelləri əsasında çalışan Sİ sistemləri xəstəliyin diaqnozu, terapevtik reaksiyanın proqnozlaşdırılması və profilaktik tibb sahəsində uğurla istifadə edilir. Süni intellektin tətbiqi diaqnostik dəqiqliyin, klinik əməliyyatların səmərəliliyinin artırılmasında, xəstəlik və müalicənin monitorinqinin asanlaşdırılmasında, prosedur dəqiqliyi və ümumi müalicə nəticələrinin yaxşılaşdırılmasında mühüm rol oynayır.

Tibbdə Sİ platformasının tətbiqi və inkişafının müəyyən mərhələlər üzrə texnologiyaları cədvəl 1-də qısa şəkildə təsvir edilmişdir:

Cədvəl 1. Süni intellekt texnologiyaları

| |
|---|
| **Maşın öyrənməsi (ML):** nümunələrin identifikasiyası və təhlili; burada modellər, təqdim edilmiş məlumatlar bazasını öyrənmək və analiz etməklə təkmilləşir. |
| **Dərin öyrənmə (DL):** maşınlara özbaşına öyrənməyə və qərar qəbul etməyə imkan verən, çox qatlı neyron şəbəkələrdən ibarətdir. |
| **Təbii dil emalı (NLP):** kompüterlərə insan nitqini anlayaraq ondan məlumat çıxarmağa və bu məlumat əsasında qərarlar qəbul etməyə imkan verən prosesdir. |
| **Kompüter görməsi (CV):** Kompüterin bir sıra şəkilləri və ya videoları başa düşərək, onlardan məlumat və anlayış əldə etməsi prosesidir. |

1950-1970-ci illərdə süni intellekt yalnız insanların verə biləcəyi nəticələr çıxara və bunun əsasında qərar verə bilən maşınların hazırlanmasına imkan verirdi. Bu illərdə ilk sənaye robot qolu (Unimate; Unimation, Danbury, Konnektikut, ABŞ) vasitəsi ilə 1961-ci ildə General Motors konveyer xəttində enjeksiyon qəlibinin avtomatlaşdırılması həyata keçirildi. Unimate, ona verilən əmrləri addım-addım (ardıcıl olaraq) yerinə yetirə bilirdi. Bir neçə il sonra (1964) amerika alimi Cozef Veyzenbaum Eliza proqramını təqdim etdi. Təbii dil emalından istifadə edərək, Eliza - insan danışığını (səthi ünsiyyət) təqlid etmək üçün gözəl uyğunlaşdırma metodologiyasından istifadə edərək insanlarla ünsiyyət qura bildi və gələcək chatbotların əsasını yaratdı.

1966-cı ildə Standford Elmi-tədqiqat institutu tərəfindən "ilk elektron insan" olan Şeyki (Shakey) hazırlanmışdır. Şeyki, təlimatları şərh edə bilən ilk mobil robot idi. Əvvəlki proqramlardan fərqli olaraq Şeyki, bir addımlı əmrləri yerinə yetirmək əvəzinə, daha mürəkkəb təlimatları emal etmək və müvafiq hərəkətləri yerinə yetirmək bacarığına malik idi. Şeykinin, yaradılması - robototexnika və süni intellekt sahəsində atılmış yeni bir addım oldu.

1970-ci illərin əvvəllərində Kaliforniyanın Stanford Universiteti tərəfindən "Geriyə zəncirlənmiş süni intellekt sistemi" MYCIN hazırlandı. Həkimlər tərəfindən daxil edilmiş xəstə məlumatlarına və 600-ə yaxın qaydadan ibarət bilik bazasına əsaslanaraq, MYCIN potensial bakterial patogenlərin siyahısını təqdim edə və sonra xəstənin bədən çəkisinə əsasən antibiotik müalicəsinin dozasın tövsiyə edə bilirdi. MYCIN sonrakı qaydalara əsaslanan sistem olan EMYCIN üçün əsas oldu. INTERNIST-1 daha sonra EMYCIN ilə eyni strukturdan və həkimlərə diaqnoz qoymaqda yardım etmək məqsədi ilə daha geniş tibbi bilik bazasından istifadə etməklə hazırlanmışdı.

1986-cı ildə Massaçusets Universiteti DXplain (qərara dəstək) sistemini buraxdı. Bu proqram diferensial diaqnoz qoymaq üçün daxil edilmiş simptomlardan istifadə edirdi. O, həmçinin ətraflı xəstəlik təsvirləri yaratmaq və əlavə istinadlara malik olan elektron tibbi dərslik kimi də həkim və xəstələrə xidmət edirdi. İlk buraxılışında, DXplain təxminən 500 xəstəlik haqqında məlumat verə bilirdi. Bir qədər sonra onun məlumat dairəsi 2400-dən çox xəstəliyə qədər genişləndi. 1990-cı illərin sonunda maşın öyrənməsinə, xüsusən də səhiyyəyə maraq yenidən artdı ki, bu da yuxarıda qeyd olunan texnoloji inkişaflarla yanaşı, tibb sahəsində Sİ-in tətbiqi üçün geniş zəmin yaratdı.

Kompüter avadanlıqlarının və proqram təminatının təkmilləşdirilməsi ilə rəqəmsal tibbə keçilməsi asanlaşdı və tibbdə Sİ-in tətbiqi daha da sürətləndi. Təbii dilin işlənməsi chatbotları səthi ünsiyyət vasitəsindən (əsasən, Eliza vasitəsi ilə) mənalı söhbətlərə əsaslanan interfeyslərə çevirdi. Texnologiya 2011-ci ildə Apple-ın virtual köməkçisi Siri və 2014-cü ildə Amazon-un virtual köməkçisi Alexa-da tətbiq edildi. Artıq 2015-ci ildə Pharmabot pediatrik xəstələri və onların valideynlərini dərman məlumatları haqqında maarifləndirmək üçün hazırlanmış chatbot idi, Mandy isə 2017-ci ildə ilkin tibbi yardım parametrləri üçün avtomatlaşdırılmış xəstə qəbulunu həyata keçirmək məqsədi ilə yaradılmışdır.

Dərin öyrənmə, tibbdə Sİ-in tətbiqinə böyük təkan verdi. Yaddaşındakı müəyyən sayda funksiyalardan istifadə edən və insanın müdaxiləsini tələb edən maşın öyrənməsindən fərqli olaraq, məlumatları müstəqil şəkildə təsnif etmək üçün dərin öyrənmədən istifadə edildi. Dərin öyrənmə ilk dəfə 1950-ci illərdə müzakirə olunsa da, onun tibbdə tətbiqi "həddindən artıq uyğunlaşma" problemi ilə məhdudlaşdı. Həddindən artıq uyğunlaşma, maşın öyrənməsi xüsusi məlumat bazasına rast gəldikdə və yeni məlumat bazalarını dəqiq emal edə bilməyəndə baş verir ki, bunun da nəticəsində qeyri-kafi emal prosesi baş verir. Bu məhdudiyyətlər 2000-ci illərdə çox böyük məlumat bazalarının meydana çıxması və hesablama gücündə əhəmiyyətli təkmilləşdirmələr nəticəsində aradan qaldırıldı.

Çox dəqiq neyron şəbəkəsi (Convolutional Neural Network, CNN) - insan beynindəki bir-birinə bağlı milyardlarla neyronun davranışını emal etmə prosesinin həyata keçirilməsi üçün istifadə edilən dərin öyrənmə alqoritminin bir növüdür. CNN nümunələri tanımaq və xüsusi filtrlər yaratmaq üçün informasiyanın giriş şəklini təhlil edən bir neçə təbəqədən ibarətdir. Burada son nəticə, bütün təbəqələrin funksiyaları birləşdirilərək əldə edilir. Hazırda Le-NET, AlexNet, VGG, GoogLeNet və ResNet kimi bir neçə maraqlı CNN alqoritmləri mövcuddur.

Sİ-in tibbi təsvirlərə tətbiqi, oradakı hesabatların dəqiqliyini, ardıcıllığını və səmərəliliyini artırmaq məqsədi ilə həyata keçirilir. 2017-ci ildə dərin öyrənmədən istifadə etməklə səhiyyədə Arterys (qanı ürəkdən daşıyan damarlar) adı altında klinik bulud tətbiqi oldu. Arterys-in ilk məhsulu olan CardioAI, ürəyin maqnit rezonans görüntülərini saniyələr ərzində təhlil edə bildi və ürəyin ejeksiyon fraksiyasını təmin etdi. Bu proqram artıq qaraciyər və ağciyər şəkillərini, döş qəfəsi və sümük-əzələ rentgenoqrafiyasını və kontrastsız baş KT (kompüter tomoqrafiyası) görüntülərini əhatə edəcək şəkildə genişləndirilmişdir.

Diabetik retinopatiya (DR) bütün dünyada qarşısı alına bilən korluğun əsas səbəblərindən biridir. Şəkərli diabetli bütün xəstələrdə retinal skrininq olur.

1. F. LI, Y. SHI, A. SHINDE, J. YE, AND W. Z. SONG, "ENHANCED CYBERPHYSICAL SECURITY IN INTERNET OF THINGS THROUGH ENERGY AUDITING," IEEE INTERNET OF THINGS JOURNAL, 2019.

2. [W. SHI, J. CAO, Q. ZHANG, Y. LI, AND L. XU, "EDGE COMPUTING: VISION AND CHALLENGES," IEEE INTERNET THINGS J., VOL. 3, NO. 5, PP. 637–646, OCT. 2016

3. K. GAI, K.-K. R. CHOO, M. QIU, AND L. ZHU, "PRIVACY-PRESERVING CONTENT-ORIENTED WIRELESS COMMUNICATION IN INTERNET-OF-THINGS," IEEE INTERNET OF THINGS JOURNAL, VOL. 5, NO. 4, PP. 3059–3067, 2018.

4. C. PATEL AND N. DOSHI, "SECURITY CHALLENGES IN IOT CYBER WORLD," IN SECURITY IN SMART CITIES: MODELS, APPLICATIONS, AND CHALLENGES, SPRINGER, 2019, PP. 171–191

5. S. YI, Z. HAO, Q. ZHANG, Q. ZHANG, W. SHI, AND Q. LI, "LAVEA: LATENCY-AWARE VIDEO ANALYTICS ON EDGE COMPUTING PLATFORM," IN PROCEEDINGS OF THE SECOND ACM/IEEE SYMPOSIUM ON EDGE COMPUTING - SEC '17, SAN JOSE, CALIFORNIA, 2017, PP. 1–13

# BULUD TEXNOLOGİYALARINDAN İSTİFADƏNİN PROQRAM TƏMİNATINA VERDİYİ ÜSTÜNLÜKLƏR

**İSGƏNDƏRLİ MURAD KAMRAN OĞLU**
Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)
Beynəlxalq Magistratura və Doktorantura Mərkəzi / Kompüter elmləri
*murad.isgandar@gmail.com*
BAKI, AZƏRBAYCAN

**XÜLASƏ**

Tədqiqat işinin məqsədi proqram təminatı hazırlanarkən bulud texnologiyalarından istifadənin verdiyi üstünlüklərin araşdırılmasıdır. Proqram təminatı hazırlanarkən trafikin artma və azalma halında miqyaslanma, sistemdə baş verəcək problemlərə qarşı dayanıqlılıq, hər bir zaman aralığında əlçatanlıq və server tərəfindən sorğuya maksimum qısa müddətdə cavabın verilməsi kimi müəyyən arxitektura prinsipləri əsas götürülür. Proqram təminatı müasir dünyada biznesin aparıcı və gəlir gətirən mənbəyi olduğundan bu prinsiplərin hər birinin gözlənilməsi vacibdir. Bu sadalanan məsələlər tədqiqat işinin aktuallığını əks etdirir. Məqalədə bulud texnologiyalarının tətbiqinin proqram təminatına verdiyi üstünlüklərin tədqiq olunması məqsədilə Amazon Veb Xidmətləri qlobal bulud provayderinin verdiyi xidmətlərdən istifadə edilmişdir. Geniş miqyasda istifadəsi tövsiyə olunan xidmətlərdən bir neçəsi Java proqramlaşdırma dilində yazılmış tədqiqat məqsədli kiçik proqramlara inteqrasiya olunmuş və bu yolla onların üstünlükləri araşdırılmışdır. Tədqiqat işi Amazon Veb Xidmətlərinin timsalında digər

bulud provayderlərinin də təklif etdiyi “Advanced Message Queuing Protocol” protokolu ilə işləyən xidmətlər, müxtəlif verilənlər bazası xidmətləri, virtual serverlər, “serverless” texnologiyalar kimi oxşar xidmətlərin proqram təminatına verdiyi üstünlüklərdən bəhs edir. Müvafiq proqram təminatının hazırlanıb ərsəyə gətirilməsində tədqiqat işində araşdırılan xidmətlərin böyük praktiki əhəmiyyəti vardır, praktikada bu xidmətlərin istifadə olunması həm qiymət cəhətdən sərfəli, həm də daha keyfiyyətlidir. Lokal mühitlə müqayisədə bulud mühitindən istifadə etmək şirkətlərə həm vaxt, həm də maliyyə cəhətdən qənaət etməyə imkan yaradır. Tədqiqatın elmə tövhəsi proqram təminatının əsas arxitektura prinsiplərinin bulud mühitində gözlənilməsinin gətirəcəyi elə faydalardan ibarətdir ki, bunun da nəticəsində daima işlək proqram təminatı biznesin irəliləməsinə səbəb olacaqdır.

**AÇAR SÖZLƏR: Proqram təminatı, bulud texnologiyaları, arxitektura prinsipləri**

BenefIts of usIng cloud technologIes on software

**SUMMARY**

The purpose of the research work is to investigate the advantages of using cloud technologies when developing software. When developing the software, certain architectural principles such as scaling in case of traffic increase and decrease, stability against problems occurring in the system, availability at each time interval and response to the request by the server in the shortest possible time are based. Since software is the leading and most profitable source of business in today's world, it is important to expect each of these principles. These listed issues reflect the relevance of the research work. In the article, the services provided by the global cloud provider Amazon Web Services were used in order to study the advantages of the application of cloud technologies to the software. Several of the widely recommended services have been integrated into small research programs written in the Java programming language, and their merits have been explored in this way. The research paper talks about the advantages of similar services, such as services that work with the "Advanced Message Queuing Protocol" protocol, various database services, virtual servers, and "serverless" technologies offered by other cloud providers, such as Amazon Web Services. The services investigated in the research work have a great practical importance in the development and production of the appropriate software, the use of these services in practice is both cost-effective and of better quality. Compared to the local environment, using the cloud environment allows companies to save both time and money. The scientific contribution of the study is the benefits of keeping the basic architectural principles of software in the cloud environment, which will result in always-on software that will lead to business progress.

**KEYWORDS: Software, cloud technologies, architecture principles**

## GIRIŞ

Mövzunun aktuallığı: Müasir informasiya texnologiyaları sahəsində bulud texnologiyalarının tətbiqi olduqca geniş yayılmışdır. Bunun nəticəsində dünyaca məşhur şirkətlər bir-biri ilə bazar uğrunda mübarizədədir. Nəticədə sərfəli və keyfiyyətli xidmət tapmaq mümkündür. Buluddan istifadə proqram təminatı ilə biznesini reklam edən şirkətlər üçün xeyli üstünlüklər qazandırır. Daima işlək proqram təminatını ərsəyə gətirmək üçün vacib arxitektural məsələlərin həlli bulud mühitlərinin əsas öhdəliyidir. Eyni prinsipləri lokal mühitdə (ingiliscə, “on premise” və ya “bare metal”) yerləşdirilmiş proqram təminatında gözləmək əlavə resurs və maliyyə tələb edir. Nəhəng server infrastrukturunu daima işlək və miqyaslana bilən vəziyyətdə saxlamaq maliyyə cəhətdən çox baha başa gəlir. Proqram təminatı son istifadəçiyə təqdim olunmaq üçün serverə yerləşdirilməli və publik IP ünvan alaraq internet şəbəkəsində yayımlanmalıdır. Lokal və bulud mühiti kimi iki cür yerləşdirmə mühiti mövcuddur. Lokal mühitdən istifadənin əsas üstünlüyü server infrastrukturuna tam nəzarət etmək imkanının olmasıdır. Bununla yanaşı saxlama xərcləri və bunun nəticəsində arxitektura prinsiplərinin gözlənilməsində yaranan çətinliklər kimi mənfi tərəfləri də qeyd etmək lazımdır. Hazırda bu istiqamətdə bulud mühitlərinin üstünlüyü var. Texnoloji xidmətlər bazarında bir-biri ilə yarışan bulud xidməti təminatçıları – provayderlər, xidmətlərin qiymətinin ucuz və sərfəli olması qarşılığında çox istifadəçinin cəlb olunmasında maraqlıdırlar. Verdiyi üstünlüklərə görə bulud mühitində proqram təminatının yerləşdirilməsinin tədqiq edilməsi aktual məsələdir. Provayderlər sadalanan arxitektura prinsiplərin gözlənilməsində 99% təminat verir. Bunu təmin etmək üçün regional data mərkəzlər qurulur. Bu data mərkəzlər qurulduğu regionda bir-birindən aralı şəkildə yerləşdirilir. Yerləşdirilmə

mövqeyinin təbii fəlakət zonası olmaması və digər təbii amillər nəzərə alınır. Güclü serverlərdən istifadə istənilən regiondan gələn sorğulara qısa müddətdə cavab qaytarılmasını təmin edir. Bulud mühitlərinin təklif etdiyi texnologiyaların lokal mühitlə müqayisədə bir çox üstünlükləri olduğuna görə onların öyrənilməsi öz aktuallığını saxlayır.

5. Hazırda görülmüş işlər: Hazırda ölkəmizdə bulud texnologiyalarından istifadə geniş yayılmadığından bu istiqamətdə tədqiqat işlərinin aparılması vacibdir və istifadənin üstünlükləri qabardılmalıdır. Şirkətlərin lokal mühitdən istifadəyə davam etməsinin əsas səbəblərindən biri illərlə oturuşmuş sistemlərin tamamilə ləğv edilib sıfırdan buluda keçməyin baha başa gəlmə ehtimalıdır. Bu keçidi reallaşdırmaq üçün həm kifayət qədər maliyyə həm də vaxt tələb olunur. Lakin yeni qurulan şirkətlərin bulud texnologiyalarına üz tutması gələcəkdə öz faydalarımı verəcəkdir. Bu istiqamətdə aparılmış tədqiqat işləri əsasən müxtəlif qlobal pravayderlərin xidmətlərinin araşdırılmasından ibarətdir. Əsas araşdırılmalı məsələ bu xidmətlərin istifadəsi ilə yaradılan proqram təminatının arxitektur prinsiplərinin qorunmasına provayder tərəfindən verilən təminatdır. Tədqiqat işində bu məsələyə toxunulur.

6. Qarşıya qoyulmuş məsələ: Bulud texnologiyalarının tətbiqinin proqram təminatına verdiyi üstünlüklərin tədqiq olunması məqsədilə AWS (Amazon Web Services) qlobal bulud provayderinin verdiyi xidmətlərdən istifadə edilmişdir. Xidmətlərin geniş istifadəsi tövsiyə olunanlardan bir neçəsi Java proqramlaşdırma dilində yazılmış tədqiqat məqsədli kiçik proqramlara inteqrasiya olunmuşdur. Bu yolla onların üstünlükləri araşdırılmışdır. Tədqiqat işi AWS-in timsalında digər bulud provayderlərinin də təklif etdiyi oxşar xidmətlərin proqram təminatına verdiyi üstünlüklərdən bəhs edir. Bu xidmətlərə AMQP (Advanced Message Queuing Protocol) protokolu ilə işləyən xidmətlər, müxtəlif verilənlər bazası xidmətləri, virtual serverlər, "serverless" texnologiyalar və başqaları aiddir.

7. Tədqiqat işinin strukturu: Tədqiqat işi azərbaycanca və ingiliscə xülasə və açar sözlərdən, girişdən, tədqiqat metodundan, nəticədən və ədəbiyyat siyahısından ibarətdir.

**TƏDQIQAT METODU**

Tədqiqat işində istifadə olunan AWS-in verilənlər bazası, virtual maşınlar, saxlanc xidmətləri də daxil olmaqla bir çox istiqamət üzrə geniş spektrı əhatə edən xidmətləri mövcuddur. Tədqiqat işi bunlardan bəzilərini əhatə edir. Bildiyimiz kimi bulud modellərinin 3 əsas növü vardır. Bunlara "infrastruktur xidmət kimi" (ingiliscə, infrastructure as a service və ya IaaS), "platforma xidmət kimi" (ingiliscə, platform as a service və ya PaaS) və "proqram təminatı xidmət kimi" (ingiliscə, sofware as a service və ya SaaS) daxildir. IaaS modeli özündə virtual maşınlar, şəbəkə konfiqurasiyaları, yük balanslaşdırıcılar (ingiliscə, load balancer) və digər texniki resursları ehtiva edir (Chris, 2016). Bu resuslar bulud provayderi tərfindən təmin edilir və istifadəçi sadəcə hazır resursları istifadə edərək öz infrastrukturunu qurmaqla məşğul olur. IaaS təminatçılarına Amazon Veb Xidmətləri, Google Bulud Platforması, Microsoft Azure, Oracle Bulud və digərlərini misal göstərmək olar. Digər növ olan platforma xidmət kimi də isə, infrastrukturun istifadəçi tərəfindən qurulmasından fərqli olaraq o, provayder tərəfindən təmin edilmiş hazır infrastrukturu istifadə edir. Məsələn, istifadəçinin Javada yazılmış proqramı var və onu yerləşdirmək istəyirsə, bu zaman hazır platformadan istifadə edərək öz proqramını saniyələr içərisində işlək vəziyyətə gətirə bilər. PaaS təminatçılarına misal olaraq Herokunu göstərmək olar. Bu provayder bir çox proqramlaşdırma dillərini dəstəkləyən platformalar təklif edir. İstifadəçiyə sadəcə proqrama uyğun mühiti seçib onu yerləşdirmək qalır. Sonuncu model isə SaaS-dır. Bu modeldə hazır proqram təminatı müştəriyə xidmət kimi təqdim olunur. İşləmə məntiqi adətən müxtəlif kateqoriyalı abunəliyə, ödənişli və ödənişsiz tarif mexanizminə dayanır. Məsələn, hər hansı X proqramı var. Tərtibatçılar proqramda ödənişli və ödənişsiz tarif mexanizmi yaradır və hər birinə aid müxtəlif funksionallıqlar əlavə edir. Proqramı işlədən istifadəçi öz ehtiyacına uyğun tarifi seçir və ödənişli tarifdisə buna abunə ola bilir. Tədqiqat apardığımız AWS-in xidmətləri arasında həm IaaS, həm də PaaS modelinə uyğun olanlar mövcuddur. PaaS modeli başqa cür "serverless" də adlanır. İngilis dilindən "serversiz" kimi tərcümə olunan bu anlayış həqiqətən də PaaS-ın məntiqinə uyğun gələn məcazdır. Bu növ xidmətdə server infrastrukturu, şəbəkə konfiqurasiyaları və digər texniki məsələlər bulud provayderi tərəfindən həll edilib hazır təqdim olunduğuna görə, istifadəçinin işi sadəcə proqramı yerləşdirməkdir. Amazonun məşhur Lambda xidməti bu istiqamətdə yaradılmışdır. Lambda bir çox proqramlaşdırma dillərinin icra mühitlərini dəstəkləyir. İcra mühitindən asılı olaraq arxada resurslar idarə olunur. Hər sorğu gəldikcə virtual resurslar yaradılır və sorğunun icra müddəti bitəndən sonra ayrılmış resurslar avtomatik silinir (Maddie, 2018). Sorğunun icra müddəti maksimum

15 dəqiqə olduğundan xidmət adətən kiçik proqramlar üçün əlverişlidir. Müddət maksimum limiti keçdikdən sonra proqramın icrası yarıda dayandırılır. Resursların avtomatik yaradılıb, silinməsi xidmətin istifadəsi üçün ödənişə də müsbət təsir edir. Miqyaslanma məsələsinə baxsaq görərik ki, xidmət eyni zamanda bir neçə sorğunun qəbul edilib, icra olunması üçün konfiqurasiya edilə biləndir. Şəkil 1-də xidmətin sorğuya cavab vermə nəticəsi verilmişdir.




**Şəkil 1.** AWS Lambda xidmətinin sorğuya cavab nəticəsi

Göründüyü kimi şəkildə müxtəlif parametrlər üzrə məlumatlar əks olunmuşdur. Bunlardan əsas "Init duration", "Duration" , "Billed duration" və "Min memory used"-a baxacayıq. Sonuncu parametr proqramın icrası üçün istifadə olunan əməli yaddaşın həcmini göstərir. Proqramın icrasına ayrılan ümumi 512 MB-dan 96 MB istifadə olunmuşdur. Digərləri uyğun olaraq proqramın icrası üçün lazım olan komponentlərin yaradılma vaxtı, ümumi icra vaxtı və icraya görə ödəniş hesablanan müddəti göstərir. Fikir versək görərik ki, icra müddəti ilə ödəniş hesablanan müddət eynidir. Bunun səbəbi odurki, xidmət ancaq icraya görə ödəniş hesablayır (Steve, 2021). Həmçinin icra müddətinin qısa olması xidmətin müştəriyə tez cavab verməsilə nəticələnir. Digər tədqiq olunan xidmət verilənlər bazası ilə əlaqədardır. Bulud mühitində təklif edilən bu tip xidmətlər yüksək sürət və böyük həcmdə daimi yaddaşla təchiz olunur. SQL, NoSQL və Keş xidmətləri mövcuddur (Derrick & Ileana, 2014). Tədqiqatda NoSQL əsaslı xidmət olan DynamoDB-yə baxılmışdır. DynamoDB yüksək sürətə malik olan və sürətli miqyaslana bilən xidmətdir. Bu xüsusiyyətlərinə görə xidmət geniş istifadə olunur. Şəkil 2-də xidmətin miqyaslanma xüsusiyyətinin konfiqurasiyası verilmişdir.




**Şəkil 2.** DynamoDB xidmətinin miqyaslanma xüsusiyyətləri

Xidmət oxuma və yazmaya görə ayrılıqda miqyaslana bilmə bacarığına malikdir. Miqyaslanma 1 saniyədə olan əməliyyatların sayına görə təyin edilir. Bu miqyaslanma əvvəlcədən təyin oluna bilən

(ingiliscə, "provisioned capacity") və ehtiyaca görə (ingiliscə, "on demand") olmaqla 2 növə ayrılır (Andreas & Michael, 2016). Şəkildə "Capacity details" başlığı ilə verilən çərçivəyə diqqət yetirək. Sol tərəfdə oxuma, sağda isə yazma konfiqurasiyaları qeyd edilib. Göründüyü kimi burada əvvəlcədən təyin olunan miqyaslanmadan istifadə olunub. İlk sətirdə ilkin olaraq 1 saniyədə 1 əməliyyat verilib. Bu mimimal həddir. 2-ci sətir miqyaslanmanın avtomatik baş verməsini göstərir. 3-cü sətirdə isə trafikdən asılı olaraq 1 saniyədə minimum 1, maksimum 10 əməliyatın baş verməsinə icazə verilir. 4-cü sətr avtomatik miqyaslanmanın hansı halda baş verəcəyini əks etdirir. Nümunədəki halda əgər trafikin artması ilə 1 saniyədə 7 əməliyyat icra olunarsa, onda xidmət maksimum əməliyyat sayını avtomatik olaraq artıracaqdır. Müasir proqramlaşdırma sahəsində trendə çevrilən hadisəyə əsaslanan arxitekturanın (ingiliscə, event driven architecture) tətbiqi üçün istifadə olunan texnologiyalar bulud xidmətlərində də mövcuddur. Amazon SQS (Simple Messaging Service) və SNS (Simple Notification Service) xidmətlərini təklif edir (Andreas & Michael, 2016). Prosesin asinxron baş verdiyi bu arxitekturada hadisəni (mesajı) göndərən və qəbul edən tərəflər var. Bu tərəflər bir-birindən asılı olmamaqla yanaşı həm də bir-birini gözləməyə məcbur olmur. Bu da özlüyündə prosesin sürətli getməsinə səbəb olur. Şəkil 3-də SQS xidmətində aparılmış təcrübəni əks etdirən qrafiklər verilmişdir.




**Şəkil 3.** SQS xidmətində aparılan təcrübənin nəticəsi

Burada ümümi göndərilmiş və qəbul edilmiş, həmçinin silinən mesajların sayını və göndərilən mesajın həcmini görə bilərik. Verilən intervalda 38 mesaj göndərilib və qarşı tərəfdən qəbul edilmişdir. Bu o deməkdir ki, xidmətdə hər hansı problem baş verməmişdir. Göndərilən mesajın həcmindən asılı olaraq onun sürəti dəyişə bilər.

**NƏTICƏ**

Tədqiqatın nəticələrindən bəhs edərkən bulud texnologiyalarından istifadənin üstünlüklərini bir daha yada salmaq lazımdır. Üzərində tədqiqat aparılmış xidmətlərin yüksək miqyaslanma funksionallığı onların artan trafik qarşısında dayanıqlı olmasına gətirib çıxarır. Tədqiq edilmiş və onların timsalında olan, provayderlərin təklif etdiyi xidmətlər müasir dünyamızda istifadəyə verilən proqram təminatlarına qoyulan əsas texniki tələblərin ödənilməsinə şərait yaradır. Yüksək trafikə dayanıqlı olmayan proqram heç bir biznesə fayda verə bilməz. Məsələyə bu istiqamətdən baxsaq görərik ki, doğrudanda böyük müştəri bazasına sahib şirkətlərin yüksək dayanıqlı sistemlərə ehtiyacı var. Həmçinin texniki təminatın provayder tərəfindən verilməsi şirkətlərə əlavə üstünlük gətirir. Bu üstünlüklərə xərclərə nəzarət də daxildir. Hər bir halda iri data mərkəzlərin saxlanması böyük həcmdə maliyyə vəsaiti tələb edir. Tədqiqat işinin naliyyətləri sırasında bunları qeyd etmək yerinə düşər. İşin səmərəliliyinə gəldikdə isə ölkəmizdə bulud xidmətlərindən istifadənin kütləvi hal almamasına görə deyə bilərik ki, tədqiq edilmiş məsələlər xidmətlərdən istifadənin artması istiqamətində öz töhvəsini verə bilər.

**ƏDƏBIYYAT SIYAHISI**

Andreas, W., & Michael, W. (2016). Amazon Web Services in Action, Manning Publications Co, Shelter Island, 397.

Steve, W. B. (2021). AWS for Beginners, United States of America, 54.

Derrick, R., & Ileana, C. (2014). The Basics of Cloud Computing, Syngress, Waltham, 174.

Maddie, S. (2018). Beginning Serverless Computing, Apress, Virginia, 207.

Chris, R. (2016). Microservices Patterns, Manning Publications Co, Shelter Island, 522.ğ

# CONVOLUTİONAL NEYRON ŞƏBƏKƏLƏRİ İLƏ ŞƏKİL TƏSNİFAT PROSSESİNİN ARAŞDIRILMASI

**ŞƏHLA, URALOVA**
Bakı Mühəndislik Universiteti
Mühəndislik fakültəsi
*suralova1@std.beu.edu.az*
BAKI, AZƏRBAYCAN

**ŞƏRIF, ŞIRƏLIYEV**
Bakı Mühəndislik Universiteti
Mühəndislik fakültəsi
*sasiraliyev@beu.edu.az*
BAKI, AZƏRBAYCAN

**XÜLASƏ**

Bu tezis, insan beyninin işləmə strukturundan ilham alaraq yaradılan süni neyron şəbəkələri və xüsusilə "Convolutional Neyron Şəbəkəsi" (CNS) alqoritminin və onun qatlarının araşdırılmasına əsaslanır. Tezisin ilk bölməsində, insan beyni ilə kompüter arasındakı əsas fərqlər vurğulanır. İnsan beyninin, müasir kompüterlərdən daha sürətli məlumatı anlamağa qadir olduğu və xüsusilə tanıma tapşırıqlarını çox qısa müddətdə icra etmə bacarığı üzərində durulur. Süni neyron şəbəkələrinin işləmə strukturu açıqlanır və onların işləmə strukturunun yeni modellərə təsirindən bəhs olunur.

Tətqiqatda, süni sinir şəbəkələri modellərindən biri olan "Convolutional Neyron Şəbəkəsi" (CNŞ) alqoritmasının nəzəri əsasları müzakirə olunur. CNŞ-in öyrənmə və siqnalları ötürmə prosesləri ətraflı şəkildə izah olunur. CNŞ-in xüsusilə şəkildə şəkilləri tanıma, təsvirlərin sinifləndirilməsində və mətn təhlili kimi tapşırıqlar üçün istifadə olunduğu vurğulanır. Daha sonra CNŞ modelinin daxili strukturu açıqlanır və Convolutional neyron şəbəkəsinin praktiki tətbiqi göstərilir.

**AÇAR SÖZLƏR:** *Neyron Şəbəkələri, Convolutional Neyron Şəbəkəsi (KNS), Konvolüsiya Qatı, Pooling Qatı, Tam Əlqaəli Qat, Aktivasiya Funksiyası*

## GIRIŞ

Günümüzün rəqəmsal dünyasında, texnologiyaların inkişafı və maşın öyrənmə alqoritmlərinin tətbiqi ilə birgə, şəkilləri müvafiq şəkildə təsnif etmək və tanımaq üçün çox sayda imkan yaradılır. Bu tezis, insan beyninin işləmə strukturundan ilhamlanaraq, süni neyron şəbəklərinin xüsusi bir növ olan "Convolutional Neyron Şəbəkəsi" (CNŞ) alqoritmlərinin araşdırılmasına həsr olunmuşdur. Tezisin ilk bölməsində, insan beyni ilə kompüter arasındakı əsas fərqlər vurğulanır. İnsan beyninin, müasir kompüterlərdən daha sürətli məlumatı anlamağa qadir olduğu və xüsusilə obyektləri anlama çox qısa müddətdə icra etmə bacarığı üzərində durulur. Süni neyron şəbəkələrinin ümumi işləmə strukturu və bu strukturun "Convolutional Neyron Şəbəkəsi" alqoritminin üzərində necə tətbiq olunduğu və daha sonrasında üz tanınma prosesində KNŞ alqoritminin tətbiqindən bəhs olunur.

## TƏDQIQAT METODU

### Neyron şəbəkələrinin ümumi anlayışı

Neyron şəbəkələri insan beynindən ilhamlanaraq yaradılmış, lakin insan beyni və kompüterdən olduqca fərqlənən bir quruluşa sahibdir [1]. İnsan beyni günümüzdə mövcud olan ən inkişaf olunmuş kompüterdən daha sürətlə qavrama prossesini aparmaqdadır. Konkret desək, beyin müntəzəm olaraq

qavrayış tanınma tapşırıqlarını (məsələn, naməlum səhnəyə daxil edilmiş tanış sifətin tanınması) təxminən 100-200 ms-də yerinə yetirir, halbuki daha az mürəkkəblikdə olan tapşırıqlar güclü kompüterdə xeyli vaxt aparır [1]. Adətən "neyron şəbəkələri" adlandırılan süni neyron şəbəkələri yarandığı gündən insan beyninin adi rəqəmsal kompüterdən tamamilə fərqli şəkildə hesablama apardığını qəbul etməklə əsaslandırılmışdır.

Süni neyron şəbəkələrinin arxitekturası çox qatlı olaraq təşkil olunmuşdur. Buna giriş qatı, çoxlu gizli qatı və çıxış qatı daxildir. Girişdə verilən siqnallar gizli qatda emal olunaraq çıxış qatına ötürülür [4].




*Şəkil 1. Neyron şəbəkə quruluşu*

**Süni neyronun quruluşu**

Neyronlar neyron şəbəkəsinin təməlini təşkil edir. Neyron informasiyanın emalı üçün əsas olan məlumat emal vahididir. Şəkil 2-də neyronun model quruluşu göstərilmişdir. Neyronnun modeli 3 əsas elementdən təşkil olunur:

1. Sinaps dəsti və yaxud bir -birinə bağlı linklər, hansı ki, hər birinin özünə məxsus çəkisi və yaxud yükü olur. Xüsusilə, $k$ neyronuna qoşulmuş $j$ sinapsın girişindəki $k_j$ siqnalı sinaptik çəkiyə $w_{kj}$ vurulur. $w_{kj}$-dəki birinci alt yazı sözügedən neyrona, ikinci alt işarə isə çəkinin daxil olduğu sinapsın giriş ucuna aiddir. Beyindəki sinapsın çəkisindən fərqli olaraq, süni neyronun sinaptik çəkisi müsbət və mənfi dəyərləri əhatə edən diapazondan ibarətdir [1].
2. Giriş siqnallarını toplamaq üçün neyronun əlaqələndirilən sinaptik güclərinin bir toplayıcıdı şəkildə göstərildiyi kimi cəmləmə "Summing function" – dır. [1]
3. Daha sonra şəkildə göstərildiyi kimi aktivləşdirmə funksiyası istifadə olunur. Hansı ki, bu funksiya neyrondan çıxacaq məlumatları məhdudlaşdırır. [1]




*Şəkil 2. Neyronun qeyri-xətti modeli [1]*

Burda sadəcə cəmləmə funksiyası qeyd olunmuşdur. Lakin müxtəlif giriş funksiyaları mövcuddur. Eyni zamanda aktivləşdirmə funsiyaları da vardır. Aktivləşdirmə funksiyası giriş funksiyasından alınan nəticənin üzərində əməliyyat aparır və çıxışa ötürür[1].

**“Convolution Neural Network” alqoritminin nəzəri əsasları**

Neyronun öyrənmə və siqnalları ötürmə prossesini daha öncə görmüş olduq. Convolutional neyron şəbəkələri daha öncə qeyd olunan neyron şəbəkələrindən fərqləndirən özəllikləri onların daha təkmilləşdirilmiş versiya olmalarıdır . Convolutional neyron şəbəkələri obyektin tanınması, təsvirin təsnifatı, mətn və səsin təhlili kimi tapşırıqlar üçün istifadə olunan dərin öyrənmənin alqoritmidir. Bu model ilk dəfə 1989-cu ildə təqdim edilmişdir , lakin yalnız son illərdə qrafik prosessor modulunun gücü artması və təlim üçün nəhəng verilənlər bazalarının mövcudluğu sayəsində kompüter görmə tapşırıqlarında geniş şəkildə istifadə edilmişdir. Bu nümunələrə təkcə təsvirlərdə deyil, nitqdə və musiqidə də rast gəlmək olar. CNN strukturu canlılardakı (heyvanlardakı) görmə strukturundan ilhamlanır [4]. Canlıların görmə strukturu daha öncə gördükləri və tətqiq etdikləri şəkillərə və yaxud vizual obyektlərə dayanır. Eyni şəkildə bu prosses neyron şəbəkələrə və yanı sıra convolutional neyron şəbəkələrdə də tətqiq olunur. Biz əvvəlcədən öyrənilməsi lazım olan şəkilləri tanıdırıq və daha sonra həmin şəkillər üzərində ortaq xüsusiyyətlər sinifləndirilir və müxtəlif qatlarda müəyyən qatlar şəklində bu prosses tətqiq olunur.




*Şəkil 3. CNN və qatları*

Yuxarıda bu qatlar göstərilmişdir. İndi isə convolutional neyron şəbəkəsinin arxitekturasına daha yaxından nəzər salaq.

**Convolutional neyron şəbəkəsinin arxitekturası**

Convolutional neyron şəbəkəsinin (CNŞ) arxasında duran mahiyyət ənənəvi neyron şəbəkələrinin görüntü məlumatları ilə yaxşı ölçüdə olmamasından irəli gəlir [3]. Şəkil məlumatları şəbəkə arxitekturasını dəyişdirməyə imkan verir. Buna görə Convolutional neyron şəbəkələri ilə neyronlar uzunluq, hündürlük və dərinlikdən istifadə edərək üçölçülü bir quruluşda uyğunlaşdırıla bilər və bu atributlar görüntü eni pikseli, hündürlük pikseli və RGB kanalları ilə əlaqələndirilə bilər. Sadə dillə desək, CNŞ-lər giriş şəklini bir neçə əlaqəli təbəqə vasitəsilə çevirir və bir sıra sinif ehtimallarını çıxarır.




*Şəkil 4. Convolutional neyron şəbəkə modelinin qayları [3]*

Şəkildən də göründüyü kimi Convolutional neyron şəbəkəsinin qatları bu şəkildədir: giriş qatı, konvolyusiya qatı, Pooling qatı, aktivasiya və Tam Əlaqəli qatı (fully connected) daxildir. Tətqiqatda görəcəyimiz kimi, bu qatlar bir neçə dəfə təkrarlanılaraq istifadə olunur.

**Giriş qatı**

Bu qatda girişə şəkil, mətn, səs kimi xam məlumat daxil olunur. Daxil olunan məlumatın bir sonrakı qatlarda daha sürətli icra olunması üçün əvvəlcədən bu məlumatlar üzərində ölçülərin balacalaşdırılması kimi proseslər icra olunur.

**Konvolusiya qatının öyrənilməsi**

Konvolyusiya qatı convolutional neyron şəbəkəsinin əsasını təşkil edən təbəqədir. burada girişə verilən şəkildə piksellərini (bu şəkilin təhlili üçün doğrudur) analiz edir daha sonrasında həmin piksellərə əsasən çıxış siqnalını hesablayır. Şəkil 5-də təhlil etsək görərik ki, girişdə verilən məlumat matrisi daha kiçik matrislərin hasili şəklində hesablanıb və çıxışa hər hansısa bir siqnal dəyərini ötürür.




*Şəkil 5. Konvolusiya qatı [3]*

Belə ki, şəkil 5 də görəcəyimiz kimi, giriş şəkilə filterlər və yaxud kernel tətbiq olunur. Bu filterlərin matris ölçüləri bir çox halda kiçik ölçülü olur. Hər bir filter dəyəri giriş məlumatının öngörülən dəyərini tapmaqda məsuliyyət daşıyır. Beləliklə ehtimal olunan xəritə yaradılmış olur və bu xəritə özündə xüsusi xarakteristikaları saxlayır. Daha sonrasında bu xəritəyə aktivasiya (aktivləşdirmə) funksiyası tətbiq olunur. Aktivasiya funksiyasına misal olaraq ReLU, sigmoid, tanh, softmax kimi funksiyalar tətbiq olunur.

**Pooling qatının öyrənilməsi**

Poolinq təbəqələri ardıcıllıq konvolüsiya təbəqələri əlavə edilir. CNN-lərdə poolinq təbəqəsi, eyni filterdə və ya xəritədəki qonşu neyronların nəticələrini birləşdirir və xüsusiyyət xəritələrinin spatial ölçüsünü azaldır. Poolinq təbəqləri məlumatın təqdimatını azaldır və ovqatlanmanın idarə edilməsinə kömək edir. Hər bir poolinq əhatə etdikləri sahəni yükləyir. Maksimum poolinq spatial olaraq girişi dəyişdirmək üçün max() əməliyyatından istifadə edir. Məsələn, 2 x 2 filter ilə, max() dörd dəyərdən ən böyüyünü götürür. Nəticə kompakt bir xüsusiyyət xəritəsidir.

Pooling və yaxud birləşdirmə qatı kimi adlandıra biləcəyimiz bu qatda CNŞ – nin əsas qatıdır. Burada konvolusiya prosesindən sonra yaranan xəritədə əsas xüsusiyyətləri saxlamaqla ölçülərini (eni və hündürlük) azaltmağı təmin edir. Pooling qatının iki əsas növü var bunlar max pooling və avarage poolingdir.




*Şəkil 6. Pooling qatının tətbiqi*

Şəkil 6 da gördüyümüz kimi max pooling qatı girişdə verilən xüsusiyyət xəritəsinin 2x2 matris şəklində ayrıraraq maksimum dəyəri alır. Bu proses xüsusiyyət xəritəsinin üzərində pooling əməliyyatı bitincəyə qədər davam edir. Avarage poolingdə isə xüsusiyyət matrisinin üzərində eyni prosesi orta dəyəri alaraq icra edir. Pooling qatının tətbiq olunmasının əhəmiyyətli faydaları bundan ibarətdir ki, xüsiyyət xəritəsi öz vacib əlamətlərini itirmədən ölçünün azaltma əməliyyatı icra olunmuş olur.

**Tam Əlaqəli qatın (fully connected) öyrənilməsi**

Tam əlaqəli qat dense(sıx) qat olaraqda tanınır. Tam əlaqəli qatda hər bir neyron bir öncəki qatdan olan neyron ilə birləşən təbəqədir. burada hər bir əlqənin öz çəkisi mövcuddur. Hansı ki, bu çəkilər təlim zamanı öyrənilmişdir. Tam əlaqəli qatda girişdəki dəyərlər və onların girişdəki çəkilərinin hasili toplanılır. Daha sonrasında alınan çəkilərin cəminə aktivasiya funksiyası tətbiq olunur. Bununla belə alınan dəyər tam əlaqəli qatın nəticəsi olmuş olur.

**Tədqiqat nəticələri**

Convolutional neyron modelinin tətbiqi zamanı, python programlaşdırma dili vasitəsi ilə tətbimizi apardıq. Təlim zamanı 700 insan üzünün şəklindən istifadə olunmuş, test mərhələsində isə 300 şəkildən istifadə olunmuşdur. Yazdığımız kodda "tensorflow", "tensorflow.keras" kimi kitabxanalardan istifadə etmişik. Daha sonrasında "sequential" modelindən istifadə edərək ona 3 dəfə konvolusiya qatı, daha sonrasında 2 dəfə pooling qatı tətbiq etmişik. Aktivasiya funksiyası olaraq "ReLU"-dan istifadə etdik.




*Şəkil 7. Tədqiqatın nəticəsi*




*Şəkil 8. Tədqiqatın maniələrlə nəticəsi*

Şəkil 7 və şəkil 8 - ə nəzər salsaq görərik ki, qarşıya maniə qoyulduğu zaman dəqqiqlik dərəcəsinin faizində azalma müşahidə edə bilərik. Lakin şəkildə göstərilən faiz dəyərlərinə nəzər salsaq bu dərəcənin olduqca yüksək olduğunu görə bilərik.

**NƏTICƏ**

Bu tətqiqat convolutional neyron şəbəkəsinin tətbiqi ilə insan üzünün aşkarlanmasını tətqid edir. Tədqiqatın əsas məqsədi, CNŞ-in şəkil təsnifat prosesindəki rolu və əldə edilmiş nəticələr üzərində ətraflı bir təhlil aparmaqdır. Əldə olunan nəticələr göstərir ki, CNŞ modeli obyektin təyin olunması tapşırıqları üçün son dərəcə müstəqil və effektivdir. Bununla belə CNŞ sadəcə insan üzünün tətbiqi və yaxud obyektlərin tapılması ilə yanı sıra tibbi şəkillərdə, avtomobil sistemlərində şəxsiyyətlərin tanınması və digər sahələrdə CNŞ nin tətbiqi mümkündür.

**ƏDƏBIYYAT SIYAHISI**

1. Haykin S. *Neural Networks and Learning Machines*, Third Edit. Pearson, 2009.

2. Irfan Aziz. *Deep Learning: An Overview of Convolutional Neural Network.* Faculty of Information Technology and Communication Sciences M.Sc. Thesis. Finland. April 2020.

3. Josh Patterson and Adam Gibson. Deep learning: a practitioners approach. OReilly, 2017.

4. Massimo Poncino, Daniele Jahier Pagliari, *Optimization of CNN-Based Object Detection Algorithms for Embedded Systems.* Italia, Torino, 2018-2019

5. Yann Lecun, Yoshua Bengio, and Geoffrey Hinton. *"Deep learning"*. In: Nature 521.7553 (2015)

6. Tareen, Shaharyar Ahmed Khan and Tareen, Filza Khan, *Convolutional Neural Networks for Beginners* (September 7, 2023). Available at SSRN: https://ssrn.com/abstract=4566310

# SƏHİYYƏ SAHƏSİNDƏ MƏLUMAT TƏHLÜKƏSİZLİYİ VƏ MƏXFİLİYİN ƏHƏMİYYƏTİ

**İSLAM ƏKBƏROV**
Azərbaycan Dövlət İqtisad Universiteti
*Rəqəmsal iqtisadiyyat*
*akbarov.islam.yusif.2021@unec.edu.az*
BAKI, AZƏRBAYCAN

**XÜLASƏ**

Daim inkişaf edən müasir səhiyyədə məlumat təhlükəsizliyi və məxfilik kritik narahatlıqlar kimi ortaya çıxır. Bu məqalə səhiyyə sistemlərinin artan rəqəmsallaşması fonunda həssas səhiyyə məlumatlarının qorunmasının həyati əhəmiyyətini araşdırır. Xəstə məxfiliyi mütləq şəkildə ön planda dayanır, səhiyyə qeydləri isə tibbi tarix və müalicə planları kimi yüksək həssas məlumatları özündə saxlayır. Burada xüsusilə Sağlamlıq Sığortasının Daşınması və Hesabatlılığı Aktı (HIPAA-Health Insurance Portability and Accountability Act) kimi qanunlara uyğunluq və xəstə etibarını qorumağın vacib olduğu vurğulanır. Şifrələmə və müntəzəm təhlükəsizlik qaydaları da daxil olmaqla, güclü təhlükəsizlik tədbirləri vasitəsilə şəxsiyyət oğurluğu və saxtakarlıq fəaliyyətlərinin qarşısının alınması və onların mühüm rolunu vurğulayaraq müzakirə edilir. Bundan əlavə, elektron sağlamlıq qeydlərinə (EHR-Electronic Health Records) və rəqəmsal sağlamlıq texnologiyalarına keçid xəstə məlumatlarının bütövlüyünü və əlçatanlığını təmin etmək üçün hərtərəfli məlumat təhlükəsizliyi təlimatlarını tələb edir. Nəhayət, məlumat təhlükəsizliyi və məxfiliyin prioritetləşdirilməsi müasir səhiyyə sistemlərində xəstə inamını, normativlərə uyğunluğu və həssas sağlamlıq məlumatlarının məxfiliyini qorumaq üçün çox vacibdir.

**AÇAR SÖZLƏR: məlumat təhlükəsizliyi, məxfilik, səhiyyə, xəstə məxfiliyi, HIPAA uyğunluğu, elektron sağlamlıq qeydləri (EHR), kibertəhlükəsizlik, rəqəmsal sağlamlıq texnologiyaları, normativlərə uyğunluq, xəstə etibarı.**

# THE SİGNİFİCANCE OF DATA SECURİTY AND PRİVACY İN THE HEALTHCARE FIELD


## ABSTRACT

In the ever-evolving landscape of modern healthcare, data security and privacy have emerged as critical concerns. This article delves into the vital significance of safeguarding sensitive healthcare data amidst the increasing digitalization of healthcare systems. Patient confidentiality stands at the forefront, with healthcare records housing highly sensitive information such as medical histories and treatment plans. Legal and regulatory compliance, particularly with laws like the Health Insurance Portability and Accountability Act (HIPAA), is underscored as imperative to avoid legal penalties and maintain patient trust. The prevention of identity theft and fraudulent activities through robust security measures, including encryption and regular security audits, is discussed, highlighting their essential role. Moreover, the transition towards electronic health records (EHRs) and digital health technologies necessitates comprehensive data security guidelines to ensure the integrity and availability of patient information. Ultimately, prioritizing data security and privacy is crucial for upholding patient trust, regulatory compliance, and the confidentiality of sensitive health information in modern healthcare settings.


**KEYWORDS:** data security, privacy, healthcare, patient confidentiality, HIPAA compliance, electronic health records (EHRs), cybersecurity, digital health technologies, regulatory compliance, patient trust.

## GİRİŞ

Səhiyyə sistemlərinin rəqəmsallaşması, xəstə məlumatlarının saxlanması, əldə edilməsi və istifadə edilməsi kimi həssas sağlamlıq məlumatlarının təhlükəsizliyi və məxfiliyi aktual narahatlıqları ortaya çıxarır. Elektron sağlamlıq qeydlərinə (EHR), teletibb platformalarına və əlaqəli tibbi cihazlara artan etibar səhiyyə təşkilatları daxilində çoxlu sayda xəstə məlumatlarının yayılmasına səbəb olmuşdur. Bu məlumat zənginliyi, klinik iş axınlarını artırmaq və tibbi innovasiyalara təkan verməkdə üçün əvəzolunmaz olsa da, adekvat qorunmadığı təqdirdə əhəmiyyətli risklər də yaradır. Məlumat təhlükəsizliyinin pozulması xəstə qeydlərinə icazəsiz giriş, şəxsiyyətin oğurlanması, maliyyə fırıldaqçılığı ilə nəticələnə bilər.

Səhiyyədə kibertəhlükəsizlik təhdidləri haqqında məlumatlılığın artmasına baxmayaraq, problemin tam əhatə dairəsini anlamaqda və effektiv həllərin həyata keçirilməsində boşluqlar qalmaqdadır. Mövcud tədqiqat məlumatların pozulmasının zəifliklərini və nəticələrini vurğulayaraq risklərin azaldılması və məlumatların qorunması tədbirlərinin gücləndirilməsi üçün qabaqlayıcı tədbirlərə təcili ehtiyac olduğunu vurğulayır. Bununla belə, səhiyyə sistemlərində məlumat təhlükəsizliyinin və məxfiliyin çoxşaxəli xarakterini araşdıran hərtərəfli tədqiqatlar məhdud olaraq qalır və əlavə araşdırmaya zəmanət verir.

Mövzu ilə bağlı hərtərəfli anlayış əldə etmək üçün müvafiq elmi məqalələr, sənaye hesabatları və normativ sənədlər nəzərdən keçiriləcək. Əsas məqsədlərimizə səhiyyə təşkilatlarında məlumatların qorunması tədbirlərini gücləndirmək üçün əsas problemlərin, zəifliklərin və ən yaxşı təcrübələrin müəyyən edilməsi daxildir. Mövcud ədəbiyyatın, tənzimləyici çərçivələrin və empirik tədqiqatların sistematik nəzərdən keçirilməsi vasitəsilə kibertəhlükəsizliyin davamlılığını artırmaq və xəstə məlumatlarını effektiv şəkildə qorumaq üçün təsirli fikirlər və tövsiyələr təqdim etməyi hədəfləyir.

Bu məqalə səhiyyə sahəsində məlumat təhlükəsizliyi və məxfiliyin kritik əhəmiyyətini işıqlandırmaq, səhiyyə təşkilatlarının üzləşdiyi kibertəhlükəsizlik problemlərinin həlli üçün dəyərli anlayışlar və tövsiyələr vermək məqsədi daşıyır. Səhiyyədə məlumat təhlükəsizliyi və məxfiliyin mövcud mənzərəsini araşdıraraq və təhlil edərək bu boşluğu aradan qaldırmağa çalışır. Birgə səylər və fəal tədbirlər vasitəsilə biz xəstə məlumatlarının məxfiliyini, bütövlüyünü və əlçatanlığını təmin edə, nəticədə səhiyyə xidmətinin keyfiyyətini və təhlükəsizliyini yüksəldə bilərik.

**Məlumat təhlükəsizliyi və məxfilik bir neçə əsas səbəbə görə səhiyyə sistemlərində böyük əhəmiyyət kəsb edir.**

1. Xəstə məxfiliyi: Səhiyyə məlumatları tez-tez xəstələr haqqında həssas və şəxsi məlumatları, o cümlədən xəstəlik tarixçəsi, diaqnozlar, müalicələr və sığorta təfərrüatlarını ehtiva edir. Bu məlumatın qorunması xəstənin məxfiliyini və etibarını qorumaq üçün çox vacibdir. Məlumat təhlükəsizliyinin

pozulması bu məlumatlara icazəsiz girişə səbəb ola bilər ki, bu da məxfiliyin pozulmasına gətirib çıxarır və xəstələrə potensial zərər verə bilir.

'Pew Araşdırma Mərkəzi' tərəfindən aparılan sorğuda amerikalıların 64%-nin məlumatların pozulması ilə üzləşdiyini, 49%-nin isə şəxsi məlumatlarının beş il əvvəl olduğundan daha az təhlükəsiz olduğunu düşünür. Bu statistik qeydlər məlumat təhlükəsizliyi, məxfilik problemləri və səhiyyə sektorunda böyük məlumat analitikasının vacibliyindən xəbər verir.

2. Hüquqi və tənzimləyici qaydalara uyğunluq: Səhiyyə təşkilatları xəstə məlumatlarının qorunmasını tənzimləyən müxtəlif qanun və qaydalara tabedir, məsələn, Birləşmiş Ştatlardakı Sağlamlıq Sığortasının Daşınması və Hesabatlılığı Aktı (HIPAA) buna aiddir. Sağlamlıq Sığortasının Daşınması və Hesabatlılığı Aktını ifadə edən HIPAA 1996-cı ildə ABŞ-da qəbul edilmiş federal qanundur. Onun əsas məqsədləri fərdlərin sağlamlıq məlumatlarının qorunmasını təmin etmək və qorunan sağlamlıq məlumatlarının təhlükəsizliyi və məxfiliyinə dair standartların yaradılmasıdır. Bu qaydalara riayət etmək təkcə qanuni cəzalardan qaçmaq üçün deyil, həm də səhiyyə müəssisəsinin bütövlüyünü və nüfuzunu qorumaq üçün vacibdir.

3. Şəxsiyyət oğurluğu və fırıldaqçılığın qarşısının alınması: Xəstə məlumatları ələ keçirildiyi təqdirdə, şəxsiyyət oğurluğu və ya saxta fəaliyyətlər üçün istifadə edilə bilər. Cinayətkarlar qanunsuz olaraq tibbi xidmətlər, reseptlər və ya sığorta ödənişləri əldə etmək üçün oğurlanmış səhiyyə məlumatlarından istifadə edə bilərlər. Bu, təkcə xəstələr üçün maliyyə riskləri yaratmır, həm də səhiyyə sistemlərinin səmərəliliyini və etibarlılığını pozur.

2015-ci ildə UCLA Səhiyyə Sistemi təxminən 4,5 milyon xəstənin şəxsi və tibbi məlumatlarının ələ keçirilməsi ilə bağlı məhkəmədə 7,5 milyon dollar təzminat ödəməli olmuşdu. Bu pozuntu birbaşa xəstələrin tərk etməsi ilə nəticələnməsə də, şəxsi məlumatlarının məxfiliyi ilə bağlı narahatlıqlara səbəb oldu və təşkilatın təhlükəsizliyini sual altında qoymuşdu.

4. Xəstə-həkim münasibətlərinin saxlanması: Xəstələr ən yaxın sağlamlıq təfərrüatlarını tibb işçilərinə etibar edirlər. Xəstə məlumatlarının təhlükəsizliyinin və məxfiliyinin təmin edilməsi xəstələr və tibb işçiləri arasında etimadı artırır. Xəstələr məlumatlarının qorunduğuna əmin olduqda, onların tibb işçiləri ilə açıq əlaqə saxlama və müalicə planlarına riayət etmə ehtimalı daha yüksəkdir.

2015-ci ildə 'JAMA Internal Medicine'-də dərc edilən bir araşdırmaya görə sorğuda iştirak edən şəxslərin 55%-nin elektron sağlamlıq qeydlərinin (EHR) məxfiliyindən çox narahat olduğu göstərilir.

2017-ci ildə Ümumi Daxili Xəstəliklər Jurnalında dərc edilən başqa bir araşdırmada xəstələrin 17% -nin elektron sağlamlıq qeydləri (EHR) ilə əlaqəli məxfilik narahatlığı səbəbindən səhiyyə işçilərindən məlumat gizlətdiyini aşkar etmişdir.

5. Məlumatların pozulmasının və kiberhücumların qarşısının alınması: Təhlükəsiz məlumat sistemləri səhiyyə qeydlərinin bütövlüyünü və dəqiqliyini qorumağa kömək edir. İcazəsiz giriş və ya xəstə məlumatlarına müdaxilə tibbi qeydlərdə qeyri-dəqiqliklərə gətirib çıxara bilər ki, bu da xəstənin təhlükəsizliyinə və müalicə nəticələrinə təhlükə yarada bilər. Bu səbəbdən səhiyyə təşkilatları malik olduqları məlumatların dəyərli təbiətinə görə kiberhücumların əsas hədəfləridir. Məlumatların pozulması əhəmiyyətli maliyyə itkiləri, nüfuzun zədələnməsi və hüquqi öhdəliklərlə nəticələnə bilər. Şifrələmə, firewalllar və müntəzəm təhlükəsizlik addımları kimi möhkəm məlumat təhlükəsizliyi tədbirlərinə sərmayə qoymaq pozuntuların qarşısını almaq və kiber təhdidlərin təsirini azaltmaq üçün vacibdir.

6. Tədqiqat və ictimai sağlamlıq təşəbbüslərinin asanlaşdırılması: Səhiyyə məlumatları tibbi tədqiqatlarda və ictimai səhiyyə təşəbbüslərində də mühüm rol oynayır. Xəstə məlumatlarının məxfiliyinin qorunması tədqiqat işlərində iştirakın təşviq edilməsi və epidemioloji məqsədlər üçün sağlamlıq məlumatlarının paylaşılması üçün vacibdir. Məlumat təhlükəsizliyinin qorunması tədqiqatçıların fərdi məxfilik hüquqlarını pozmadan anonim məlumatlara daxil ola bilməsini təmin edir.

**Səhiyyədə məlumat təhlükəsizliyinə icmal.**

Səhiyyə sistemləri elektron sağlamlıq qeydlərini (EHR), diaqnostik şəkilləri, müalicə tarixçələrini və daha çoxunu əhatə edən çoxlu sayda xəstə məlumatını yaradır və saxlayır. Bu məlumat zənginliyi şəxsiyyət oğurluğu, sığorta fırıldaqlığı və qara bazarda digər qeyri-qanuni fəaliyyət potensialına görə kibercinayətkarlar üçün gəlirli hədəf rolunu oynayır.

IBM-in 2020-ci il Məlumatların Təhlükəsizliyi Hesabatına görə, səhiyyə məlumatlarının pozulmasının orta qiyməti qlobal miqyasda təxminən 7,13 milyon dollar təşkil edir. Bu da öz növbəsində səhiyyə məlumatlarını və səhiyyə ekosisteminə inamı qorumaq üçün güclü təhlükəsizlik tədbirlərinə kritik ehtiyacı vurğulayır.

***Cədvəl 1**. Sənayedə məxfiliyin pozulması ilə bağlı müqayisəli araşdırma,milyon ABŞ dolları*

| Sənaye sahələri | Məxfiliyin pozulması ilə dəymiş ziyanın orta qiyməti |
|---|---|
| Səhiyyə | 7,13 milyon dollar |
| Maliyyə | 5,72 milyon dollar |
| Energetika | 5,58 milyon dollar |
| Texnologiya | 5,04 milyon dollar |
| Pərakəndə satış | 4,51 milyon dollar |

**Mənbə:** IBM Məlumat Pozulmasının Qiyməti Hesabatı 2021

**Tənzimləyici mühit və uyğunluq tələbləri.**

Səhiyyədə məlumat təhlükəsizliyinə artan təhdidlərə cavab olaraq, Səhiyyə Sığortasının Daşınması və Hesabatlılığı Aktı (HIPAA) kimi tənzimləyici orqanlar xəstələrin məxfiliyini qorumaq və məlumatların təhlükəsizliyini təmin etmək üçün ciddi tələblər müəyyən etmişdir. Səhiyyə təşkilatları şifrələmə, girişə nəzarət və müntəzəm risk qiymətləndirmələri kimi hərtərəfli təhlükəsizlik tədbirlərini həyata keçirməklə bu qaydalara əməl etməlidir. Tənzimləyici standartlara uyğunluq həm məlumatların pozulması riskini azaldır, həm də səhiyyə təşkilatlarında hesabatlılıq və şəffaflıq mədəniyyətini gücləndirir.

***Cədvəl 2**. Məlumatlara sızıntılarla bağlı araşdırma: 2018-2020-ci illər*

| İllər | Bildirilmiş məlumat sızıntılarının sayı | Ümumi sızıntılara məruz qalmış məlumatların sayı |
|---|---|---|
| 2020 | 642 | 24,1 milyon |
| 2019 | 521 | 41,1 milyon |
| 2018 | 365 | 15,1 milyon |

**Mənbə:** HIPPA Jurnalı 2020

'Protenus Breach Barometer'-ə görə, 2019-cu ildə 41 milyondan çox xəstə qeydinə təsir edən 521 səhiyyə məlumat pozuntusu qeydə alınıb. Bu göstərici səhiyyə sektorunda məlumatların sızıntılarının narahatedici tezliyini və hər il sızıntıya məruz qalan məlumatların çoxluğunu göstərir.

**Məlumat təhlükəsizliyində çətinliklər və risklər.**

Tənzimləyici standartlara baxmayaraq, səhiyyə təşkilatları xəstə məlumatlarının effektiv şəkildə qorunmasında çoxsaylı problemlərlə üzləşirlər. İşçilərin səhlənkarlığı və ya pis niyyətli şəxslər də daxil olmaqla daxili təhdidlər və fişinq fırıldaqları kimi xarici təhlükələrlə yanaşı əhəmiyyətli risklər yaradır. Müasir səhiyyə İT sistemlərinin mürəkkəbliyi və əlaqəli tibbi cihazların yayılması bu problemləri daha da mürəkkəbləşdirir və zəiflikləri azaltmaq, inkişaf edən təhlükələrdən qorunmaq üçün daha güclü strategiyaları tələb edir.

**Məlumat təhlükəsizliyini artırmaq üçün ən yaxşı təcrübələr.**

Bu problemləri həll etmək üçün səhiyyə təşkilatları məlumat təhlükəsizliyinə çox səviyyəli yanaşma tətbiq etməlidir. Buraya möhkəm autentifikasiya mexanizmlərinin tətbiqi, məlumatların şifrələnməsi və zəiflikləri aradan qaldırmaq üçün proqram təminatının müntəzəm olaraq yenilənməsi daxildir. Əlavə olaraq, işçilərin hərtərəfli təlimi və maarifləndirilməsi proqramları təhlükəsizlik mədəniyyətini inkişaf etdirmək və təşkilatın bütün səviyyələrində məlumatların qorunması siyasətlərinə uyğunluğu təmin etmək üçün vacibdir.

**Məxfilik mülahizələri və xəstə hüquqları.**

Məlumat təhlükəsizliyi ilə paralel olaraq, xəstənin məxfiliyinin qorunması səhiyyədə böyük əhəmiyyət kəsb edir. Xəstələr öz tibbi qeydlərinə girişi nəzarətdə saxlamaq və məlumatlarının necə istifadə olunduğunu və paylaşıldığını bilmək hüququna malikdirlər. Səhiyyə işçiləri tədqiqat və ya marketinq məqsədləri üçün xəstə məlumatlarını açıqlamadan əvvəl məlumatlı razılıq almalı və onların məxfiliyinə xələl gətirən məlumatların pozulması halında xəstələri dərhal xəbərdar etməlidirlər. Xəstə hüquqlarının müdafiəsi təkcə etimadı gücləndirmir, həm də səhiyyə xidmətinin göstərilməsinin etik əsasını gücləndirir.

**Texnoloji innovasiyalar və yaranan trendlər.**

Blockchain, süni intellekt (Sİ) və təhlükəsiz bulud əsaslı saxlama kimi texnoloji irəliləyişlər səhiyyədə məlumatların təhlükəsizliyini və məxfiliyini gücləndirmək üçün böyük vədlər verir. Blockchain texnologiyası tibbi qeydlər üçün müdaxiləyə qarşı audit yollarını təmin edərək məlumatların bütövlüyünü və izlənilməsini gücləndirə bilər. Süni intellektlə işləyən alətlər təhdidlərin daha sürətli aşkarlanmasına imkan verir, təhlükəsiz bulud infrastrukturu isə məlumatların saxlanması və idarə edilməsi üçün miqyaslana bilən və sərfəli həllər təklif edir.

**Gələcək istiqamətlər və tövsiyələr.**

Gələcəyə baxsaq, səhiyyə təşkilatları inkişaf edən kibertəhlükəsizlik təhdidləri və tənzimləyici tələblər qarşısında ayıq qalmalıdırlar. Qabaqcıl təhlükəsizlik texnologiyalarına sərmayə qoymaq, işçilərin davamlı təlimi və aktiv risklərin idarə edilməsi gələcəkdə gözlənilən məxfilik problemlərini azaltmaq və uyğunluğu qorumaq üçün vacib olacaqdır. Bundan əlavə, səhiyyə işçiləri, texnologiya satıcıları, tənzimləyicilər və siyasətçilər də daxil olmaqla, maraqlı tərəflər arasında əməkdaşlıq sistemli problemlərin həllində və səhiyyə sektorunda təhlükəsizlik və məxfilik mədəniyyətinin təşviqində mühüm rol oynayacaq.

## NƏTİCƏ

Sonda, bu araşdırma səhiyyə sahəsində məlumat təhlükəsizliyi və məxfiliyin kritik əhəmiyyətinə işıq saldı. Tənzimləyici tələblərin, problemlərin, ən yaxşı təcrübələrin və inkişaf etməkdə olan texnologiyaların tədqiqi vasitəsilə xəstə məlumatlarının qorunması və tənzimləyicilərə uyğunluğun təmin edilməsi üçün effektiv strategiyalar barədə məlumat vermək üçün əsas anlayışlar toplanmışdır. Bu araşdırmanın nəticələri, daxili təhdidlərdən tutmuş mürəkkəb kiberhücumlara qədər səhiyyə təşkilatlarının üzləşdiyi məlumat təhlükəsizliyi risklərinin çoxşaxəli xarakterini vurğulayır. Bu çətinliklərə baxmayaraq, şifrələmə, girişə nəzarət və işçilərin təlimi daxil olmaqla möhkəm təhlükəsizlik tədbirlərinin həyata keçirilməsi zəifliklərin azaldılmasını və həssas xəstə məlumatlarının qorunmasını vəd verir.

Bundan əlavə, süni intellekt kimi texnoloji yeniliklər məlumatların təhlükəsizliyini və məxfiliyini artırmaq üçün böyük potensiala malikdir, inkişaf edən təhdidləri və tənzimləyici tələbləri həll etmək üçün genişlənə bilən həllər təklif edir. Bu irəliləyişlərdən istifadə etməklə və maraqlı tərəflər arasında əməkdaşlığı inkişaf etdirməklə səhiyyə təşkilatları öz təhlükəsizlik mövqelərini gücləndirə və rəqəmsal əsrdə xəstələrin inamını qoruya bilərlər. Təhlükəsizlik protokollarının davamlı qiymətləndirilməsi, qabaqcıl texnologiyalara sərmayə qoyuluşu və tənzimləyici standartlara riayət edilməsi səhiyyə məlumatlarının bütövlüyünü və məxfiliyini qorumaq üçün vacib olacaqdır.

Xülasə, bu tədqiqat səhiyyə sektorunda məlumat təhlükəsizliyi və məxfilik problemlərini həll etmək üçün qabaqlayıcı tədbirlərin görülməsinin vacibliyini vurğulayır. Bu səyləri prioritetləşdirməklə və texnoloji yenilikləri mənimsəməklə, səhiyyə təşkilatları xəstələrin etibarını qoruya, riskləri azalda və həssas səhiyyə məlumatlarının məxfiliyini və bütövlüyünü təmin edə bilərik.

## ƏDƏBİYYAT SİYAHISI

1. Smith, J. (2021). Ensuring Data Security in Healthcare: Challenges and Solutions. *Journal of Health Informatics, 10*(2), 123-135.

2. Johnson, A. (2019). Privacy Concerns in Electronic Health Records: A Literature Review. *Healthcare Management Review, 25*(3), 45-58.

3. Hulme, A. T., & Peters, O. (2019). Privacy and Healthcare Data: 'Choice Architecture' and the 'Tragic Choice'. *Public Health Ethics, 12*(3), 292-301.

4. Kim, Y., Kim, S., & Lee, S. (2020). The Impact of Data Security Breaches on Hospital Performance: A Mediating Role of Information Technology Governance. *International Journal of Environmental Research and Public Health, 17*(18), 1-14.

5. Wang, Y., Kung, L., & Byrd, T. A. (2018). Big data analytics: Understanding its capabilities and potential benefits for healthcare organizations. *Technological Forecasting and Social Change, 126*, 3-13.

# BULUD TEXNOLOGIYALARINDA TƏHLÜKƏSIZLIK

**ƏZIZLI SARAY**
Bakı Mühəndislik Universiteti
Kompüter Mühəndisliyi
*sezizli3@std.beu.edu.az*
BAKI, AZƏRBAYCAN

**XÜLASƏ**

Bulud texnologiyalarının tətbiqinin genişlənməsinin əsas səbəblərindən bəhs edir. Bu texnologiyaların inteqrasiyası zamanı təhlükəsizlik yüksək səviyyədə təmin edilməlidir. Burada təhlükəsizlik dedikdə həm aparat səviyyəsində, həm də məlumat səviyyəsində təhlükəsizlik nəzərdə tutulur. Bununla bağlı müəyyən tədqiqatlar aparılmış və tədqiqatçıların məqalələri araşdırılıb tətqiq edilmişdir.

**KEY WORDS:** Virtual machines, authentication, encryption data, provider, private cloud

**AÇAR SÖZLƏR:** Virtual maşınlar, autentifikasiya, şifrələmə məlumatları, provayder, şəxsi bulud

## GIRIŞ

Neftin sıxışdırılması və lay təzyiqinin saxlanılması üçün suvurmanın tətbiqi neft yataqlarının işlənməsində ən geniş yayılmış üsullardan biridir. Suvurma neft hasilatında ikinci təsir üsulu hesab edilir (Austad, 2012). Neft kollektorunun islanmasının dəyişməsi hesabına neftvermənin artırılma effekti məlumdur (Wagner, 1959). İslanma effekti suda Na və pH ionunun miqdarının dəyişməsi ilə və ya suya qələvi əlavə edilməsi ilə tənzimlənir. Lay suyunun tərkibindən fərqli digər kompozisiyalı tərkibdə suyun vurulması ilə neftvermənin artırılması işlənmədə üçüncü nəsil üsullardan hesab edilir (Sheng, 2013). Neftveriminin artırılması üçün aşağı minerallı suyun laya vurulması lay suyunun vurulması ilə müqayisədə qalıq neftlə doyumluluğun təxminən 5,6-7,6 % aşağı salınmasına imkan verir (Lever, 1984). Lay suyu və aşağı minerallı suyun tətbiqinin neftin sıxışdırılma əmsalına təsiri daha dərin tədqiq edilmişdir (Morrow, 2011).

Neft layına aşağı minerallı su ilə təsirdə süxur-neft-su sistemində özünü göstərən fiziki proseslər bir neçə qrupa ayrılır: ion mübadiləsi, islanmanın dəyişməsi; minerallarn həll edilməsi, xırda dispers hissəciklərin ayrılması və miqrasiyası, məsamə kanallarının tıxanması; ikili elektrik qatı effekti; pH artımı və fazalararası səthi gərilmənin azalması, səthi-aktiv maddələr effekti.

Aşağı minerallı su ilə karbonat kollektora təsirdə əsas proseslər ion mübadiləsi və islanmanın dəyişməsi hesab edilir. Karbonat kollektorla müqayisədə terrigen kollektorda daha mürəkkəb mineraloji tərkibinə görə xırda dispers hissəciklərin miqrasiyasının üstünlük təşkil edən mexanizmi özünü göstərir.

Aşağı minerallı su ilə laya təsirdə sıxışdırma əmsalının artımı gilin şişmə effektinə görə izah olunur, nəticədə kollektorun məsaməli mühitinin strukturu dəyişir - effektiv məsaməlilik azalır, bu da öz növbəsində flüid hissəsinin laydan "sıxılması" ilə çıxarılmasına gətirir.

Gil saxlayan kollektorlardan neftin su ilə sıxışdırılması prosesinin səmərəliliyi məsaməli mühitin xassələrindən, sıxışdırma sürətindən, kapilyar qüvvələr, neft və suyun özlülükləri nisbətindən asılıdır.

Gilin şişməsində neftin su ilə sıxışdırılması əmsalının artımının kollektorun məsamə fəzasının strukturunun dəyişməsi ilə bağlıdır. Bu isə laydan flüidin müəyyən hissəsinin çıxarılmasına gətirir və uyğun olaraq neftin çıxarılmasını artırır. Tədqiqatların analizi göstərir ki, gilin şişməsi şəraitində neftin sıxışdırılma əmsalına təzyiq qradiyentinin təsiri birqiymətli deyil və gilin şişməsinin nəticəsi süzülmənin hissə-hissə, bəzi hallarda isə tam kəsilməsinə gətirir.

Gil saxlayan kollektor başlanğıc təzyiq qradiyentinə malik olur və onun miqdarı nə qədər yüksək olarsa gilin şişmə dərəcəsi də bir o qədər yüksək olur. Başlanğıc təzyiq qradiyentindən yuxarı tətbiq olunan təzyiq qradiyentinin artırılması layda süzülmənin bərpa olunmasına gətirir və nəticə olaraq neftin sıxışdırılma əmsalını artırır. Bu halda vurulan su əvvəllər suyun təsiri ilə əhatə olunmayan məsamələrə daxil olması imkanı əldə edir.

Aparılan çoxsaylı tədqiqatların analizinin ümumiləşməsi göstərir ki:

- gilli neft layına duzdan təmizlənmiş su ilə təsir etdikdə gil minerallarının şişməsi hesabına sıxışdırma əmsalının artması təmin edilə bilir;
- gilli neft layına duzdan təmizlənmiş su ilə təsirdə keçiriciliyinin kifayət qədər azalması, kolloid qarışıq yaranması, sonradan duzlu su ilə təsirdə keçiriciliyinin bərpa olunması mümkündür;
- süxur massivinə effektiv təzyiqin təsiri vəziyyətindən asılı olaraq gil minerallarını özündə saxlayan məhsuldar horizontun gil mineralları ilə lay suyundan fərqli suyun qarşılıqlı təsiri süxur - kollektorun çatlamasına və mikroçatlı zonanın yaranmasına təkan verməklə məhsuldar intervalların keçiriciliyinin kəskin artımı təmin edilə bilər;
- gilli neft layının kimyəvi maddələrin sulu məhlulları əsasında işlənməsi ilə neft hasilatının artırılmasının efektivliyi təmin edilə bilər.

Lay suyunun xarakteristikalarından fərqli suyun laya vurulmasında süxur-flüid sisteminin uzun müddətli tarazlıq vəziyyətini pozan fiziki-kimyəvi proseslər neftin hasilatı tempinə və neftvermə əmsalına əhəmiyyətli dərəcədə təsirini göstərir. Məsələn, suvurmada xüsusi hallardan biri olan aşağı minerallı suyun tətbiq edilməsi süxurun gil sementinin şişməsinə və nəticədə kollektorun keçiriciliyinin kəskin azalmasına təkan verə bilər.

Terrigen kollektorlar üçün quyu məhsulunun yüksək sulaşması, karbonat kollektorlar üçün isə layın qeyri-bircinsliyi, hidrofobluğu və çox hallarda neftin yüksək özlülüyü suvurmanın zəif effektiv olmasını şərtləndirir. Bu və ya digər problemlər neft yataqlarının suvurma ilə işlənməsində layın əhatə əmsalının artırılmasına, neftlə sərhəddə əmələ gələn səthi gərilmənin azaldılmasına, süxur səthinin lazımınca isladılmasına, layın sulaşmış sahələrində neft saxlayan qüvvələrin aradan qaldırılmasına imkan verən yeni yanaşmaların seçilməsini tələb edir.

Bu baxımdan gilli kollektorlarda neftin müxtəlif mineral tərkibli su ilə sıxışdırılması prosesini tənzimləməklə quyu məhsulunun sulaşmasının aşağı salınması və neftvermənin artırılmasına gətirən effektiv işlənilmə üsullarının yaradılması aktual məsələlərdən hesab edilir.

Bu məqsədlə gilli kollektorlarda neftin müxtəlif mineral tərkibli su və nanosistemlə sıxışdırılması ilə quyu məhsulunun sulaşmasının aşağı salınması və neftveriminin artırılması imkanlarının qiymətləndirilməsi üsulu işlənilmişdir.

**TƏDQİQAT METODU**

Gilli zəif keçiricilikli layın neftveriminin artırılması üçün şirin və lay suyunun növbəli tətbiqi ilə gil aktivliyinin tənzimlənməsi hesabına sulaşmış zonaların bloklanmasının təmin edilməsi və kollektorun az işlənilmiş hissələrinə (zəif keçiricilikli hissələrinə) su axınının yönəldilməsi üsulu işlənilmişdir.

Şirin və lay suyunun növbəli tətbiqi üsulunun təsir mexanizmi - quyu məhsulunun sulaşmasının aşağı salınması, sıxışdırma əmsalının artımı və sıxışdırma cəbhəsinin bərabərləşdirilməsinə əsaslanır. Belə ki, üsulun tətbiqi ilə işlənmənin müəyyən mərhələsində layda duzdan təmizlənmiş suyun müəyyən həcmi qədər araqatı yaradılır və sonradan lay suyuna nanosistem əlavə olunmaqla suvurma aparılır. Nəticə olaraq neftin sıxışdırılması prosesi müəyyən müddət üçün gilin xassələrinin tənzimlənməsi hesabına yaxşılaşdırılır və hasilat quyularının məhsuldarlığı artır.

Aparılan çoxsaylı tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, laya aşağı minerallı suyun vurulması ilə onun araqatının yaradılmasına işlənmənin müəyyən müddətindən sonra başlanılması səmərəli hesab edilir. Bu halda məhsulun böyük hissəsinin çıxarılması praktiki sulaşmanın məhdudlandırılması hesabına təmin edilir. Terrigen kollektora vurulan suyun minerallığı və quyudibi zonada gil minerallarının aktivliyinin tənzimlənməsi hesabına layın neft hasilatının artımı təmin edilə

bilər. Bundan əlavə müəyyən olunmuşdur ki, yüksək keçiricilikli sulaşmış zonalarda gil aktivliyinin tənzimlənməsi hesabına gilin şişməsi və parçalanması ilə həmin zonaların bloklanmasının təmin edilməsi və kollektorun az işlənilmiş hissələrinə (zəif keçiricilikli hissələrinə) su axınının yönəldilməsi ilə neft hasilatının artımını identifikasiya etmək olar.

Beləliklə, alınan nəticələr onu qeyd etməyə əsas verir ki, şirin və lay suyunun növbəli tətbiqi üsulu baxılan lay elementində neftin sıxışdırılması prosesini tənzimləməklə hasilatın artımını təmin etməyə imkan verir.

Gilli kollektorlarda neftin müxtəlif mineral tərkibli nanosistem ilə sıxışdırılması prosesini tənzimləməklə neftveriminin artırılması üsulunun (minerallığı aşağı olan və lay suyunun növbəli tətbiqi üsulunun) mədən şəraitində effektivliyini qiymətləndirmək məqsədilə onun tətbiqinin sınaq işləri "Neft Daşları" NQÇİ-də aparılmışdır. Əvvəlcə suvurucu quyu ilə aşağı minerallı su mərkəzdənqaçma nasosu vasitəsilə laya vurulmuş, daha sonra isə vurucu quyu ilə lay suyuna nanosistem əlavə edilməklə onun vurulması davam etdirilmişdir.

Aparılan hesablamalar göstərir ki, baxılan horizontun bir elementi üzrə sahədə vurucu quyu ilə lay suyundan fərqli vurulan suyun minerallığını dəyişməklə müəyyən məsamələr həcmi qədər araqatının yaradılması və sonradan nanosistemin vurulmasının nefti sıxışdırma prosesi qalıq neft ehtiyatlarının işlənməyə cəlb olunmasına gətirir. Bu onunla izah olunur ki, lay suyu ilə müqayisədə minerallığı aşağı olan suda pH göstəricisinin yüksək olması layda ümumi su qarışığında pH göstəricisinin artımına gətirir və nəticədə fazalararası səthi gərilmənin azalması baş verir. Həmçinin, neftin polyar komponentləri gil səthindəki mənfi yüklərlə bağlanır, gilin parçalanması nəticəsində elektrokimyəvi aktiv ionlarla axına qoşulur və sıxışdırma əmsalı artır. Minerallığı aşağı olan suyun vurulması onun süzülmə sürətinin azalmasına gətirir və nəticədə sıxışdırma cəbhəsi bərabərləşir, neftverimi artır. Eyni zamanda minerallığı aşağı olan suyun vurulması zamanı sulaşmış zonalarda gilin şişməsi həmin zonaların bağlanmasına gətirir və nəticədə quyu məhsulunun sulaşması azalır.

**NƏTİCƏ**

İşlənmənin son mərhələsində olan neft layına aşağı minerallı su ilə araqatı yaradılması və sonra nanosistem ilə təsir çıxarılması çətin olan qalıq neft ehtiyatlarının çıxarılmasına imkan vermişdir. Belə ki, şirin su araqatı qeyri-bircins layın yüksək keçiricilikli zonalarına daxil olaraq həmin zonanın gil minerallarının şişməsini təmin etməklə süxurun məsamə həcmini azaldır və onun suya nəzərən faza keçiriciliyini kəskin azaldır. Nəticə olaraq sonradan laya vurulan nanosistem onun zəif keçirici zonalarını əhatə edir və neft ehtiyatlarının hasilat quyularına sıxışdırılmasına impuls verir. Həmçinin, nanosistem süxur səthinin hidrofilliyini artırmaqla zəif keçirici zonaların süxur səthindən karbohidrogenlərin yuyulmasını və layın işlənilmə zonasını artırmağa imkan verir. Layın yüksək və aşağı keçiriciliyə bölünməsi müəyyən tərtibdən aradan qaldırılır və keçiriciliyin bərabərləşməsi təmin edilir. Nəticədə quyuya neftin süzülməsində əhatə əmsalının artırılması təmin edilir.

Beləliklə, aparılan tədqiqatlara əsasən aşağıdakı nəticələri qeyd etmək olar:

- Müxtəlif mineral tərkibli nanosistem ilə araqatı yaratmaqla sulaşmış zonalarda gilin şişməsini təmin etməklə quyu məhsulunun praktiki sulaşmasının məhdudlandırılmasına, suyun süzülmə sürətinin azalmasına və pH göstəricisinin artımının təmin olunması ilə fazalararası səthi gərilmənin azaldılması, neftin polyar komponentlərinin gil səthindəki mənfi yüklərlə bağlanması və gilin parçalanması nəticəsində elektrokimyəvi aktiv ionlarla axına qoşulmasının təmin olunması ilə sıxışdırma əmsalının artırılması hesabına hasilatın intensifikasiyası təmin edilir.

- Laya aşağı minerallı suyun vurulması ilə araqatının yaradılmasına işlənmənin müəyyən müddətindən sonra başlanılması səmərəli hesab edilir. Bu halda məhsulun böyük hissəsinin çıxarılması praktiki sulaşmanın məhdudlandırılması hesabına təmin edilir.

- Yüksək keçiricilikli sulaşmış zonalarda gil aktivliyinin tənzimlənməsi hesabına gilin şişməsi və parçalanması ilə həmin zonaların bloklanmasının təmin edilməsi və kollektorun az işlənilmiş hissələrinə (zəif keçiricilikli hissələrinə) su axınının yönəldilməsi ilə neft hasilatının artımını identifikasiya etmək olar.

- Laya vurulan suyun minerallaşma dərəcəsinin dəyişməsi neft və su fazaları arasında kütlə mübadiləsinə, komponentveriminə, qalıq neftin tərkib və xassələrinə kəskin təsir edir. Gilin şişməsi və fazalararası kütlə mübadiləsi suvurmanın səmərəliliyini artırır.

- Gil saxlayan kollektordan neftin aşağı minerallı su ilə sıxışdırılmasında hasil olunan mayenin məhsulunda sulaşmanın dinamikasının yaxşılaşması işlənmənin iqtisadi göstəricilərinin yüksəlməsinə gətirir.

- Gil saxlayan laya vurulan müxtəlif minerallı suya müxtəlif kimyəvi əlavələr edilməsi ilə gil minerallarının aktivliyinin tənzimlənməsi hesabına kollektorun qəbuletməsinin yaxşılaşması, süxur səthinin hidrofilliyinin artması və neftin sıxışdırılması effektivliyinin artırılması identifikasiya edilir.

**ƏDƏBİYYAT SİYAHISI**

1. Austad, T. (2012). Water Based EOR in Carbonates and Sandstones: New Chemical Understanding of the EOR-Potential Using "Smart Water". Course material, University of Stavanger, 49.

2. Wagner, O.R., Leach, R.O. (1959). Improving oil displacement efficiency by wettability adjustment. Trans. AIME, 216, 65-72.

3. Sheng, J. (2013). Enhanced Oil Recovery Field Case Studies. Gulf Professional Publishing, 712.

4. Lever, A., Dawe, R. (1984). Water-sensitivity and migration of fines in the Hopeman sandstone. J. Pet. Geol., 7 (1), 97-107.

5. Morrow, N., Buckley, J. (2011). Improved Oil Recovery by Low-Salinity Water-flooding. JPT, Distinguished Author Series, 106-112.

## DEVELOPMENT OF THE METHOD OF INCREASING OIL RECOVERY BY PRESSING OIL WITH VARIOUS COMPOSITION NANOSYSTEMS IN CLAY COLLECTORS

**ABSTRACT**

The article is devoted to the assessment of the possibility lowering the watering of the well product and increasing the oil recovery by regulating the process of oil compression with various composition nanosystems in clay collectors. Thus, the creation of interlayer with low mineral water in the oil layer in the final stage of development and then the impact with the nanosystem made it possible to extract the residual oil reserves that are difficult to extract. It has been established, that fresh water interlayer enters the high-permeability zones of the non-homogeneous layer, reduces the pore volume of the rock by swelling the clay minerals of that zone, and sharply reduces its phase permeability to water. As a result, the nanosystem, which is subsequently injected into the formation, covers its poorly conductive zones and gives an impetus to the compression of oil reserves into production wells. Also, by increasing the hydrophilicity of the rock surface, the nanosystem allows for the leaching of hydrocarbons from the rock surface of poorly permeable zones and the formation zone. The division of the layer into high and low permeability is eliminated and permeability equalization is ensured. As a result, an increase in the coverage coefficient of oil seepage into the well is ensured. Thus, by adjusting the process of injecting a nanosystem of different composition into the clay collectors in the final stage of development, limiting the practical dilution of the well product by ensuring the swelling of the clay in the watering zones, decreasing the interphase surface tension due to the decrease in the rate of water percolation and the increase of the pH indicator, binding of the polar components of the oil with negative charges on the surface of the clay, and the clay as a result of splitting, compression ratio and oil recovery have been increased.

**KEYWORDS:** collector, clay, formation water, nanosystem, oil recovery.

# TRİBOLOJİ AKTİV PLASTİK SÜRTKÜLƏRİN ALINMASI

**LEYLA SƏFƏROVA**
Bakı Dövlət Universiteti
Kimya fakultəsi
*alximikseva@mail.ru*
BAKI, AZƏRBAYCAN

**ELDAR ƏLİYEV**
ETN Aşqarlar Kimyası İnstitutu
"Zərif üzvi sintez" laboratoriyası
*alximikseva@mail.ru*
BAKI, AZƏRBAYCAN

**XÜLASƏ**

Maşın və mexanizm parkının durmadan artması sürtkü materallarının həcminin artırılmasını və onların səmərəli istifadəsi üçün çeşidlərin genişləndirilməsini tələb edir. Bitki yağı əsaslı biosürtkülər mineral sürtkü materiallarından daha bahalıdır, lakin bunun əksinə olaraq onlar daha yüksək özlülük indeksi, üstün antikorroziya xassələri, daha yüksək alışma nöqtəsi, yaxşı sürtgü qabiliyyəti, daha çox bioloji parçalanma qabiliyyəti və daha az su toksikliyi kimi unikal xüsusiyyətlərə malikdirlər.

**AÇAR SÖZLƏR: kimyəvi modifikasiya-1, biosütkü-2, plastik sürtkülər-3**

GİRİŞ

Ənənəvi sənaye sürtkü materiallari olduqca müxtəlifdir və əsasən neft əsaslı (c20−c30 karbohidrogenlərin mürəkkəb qarışıqlarını və digər birləşmələri (naften, parafin və aromatik növlər) özündə saxlayan), geniş özlülük diapazonuna, təbii yağlarla müqayisədə əlçatanlığına və aşağı qiymətinə görə sənayenin təxminən 90-95%-də istifadə olunan mineral yağlardan hazirlanan sürtkü materialıdır[1, 2] mineral yağlar da daxil olmaqla, neft məhsullari istehsalı, daşınması, saxlaması, istifadə və utilizasiya mərhələlərində ətraf mühitə daxil olur, insanlar və bütün canli orqanizmlər üçün təhlükəli, biotoksikoloji təsir göstərir və ətraf mühitin kimyəvi çirkləndiriciləri siyahisinda üstünlük təşkil edir[3,4,5]**.** Tədricən tükənən neft ehtiyatlarına alternativ olaraq yeni xammal mənbələrinin axtarışı aktual məsələdir.

TƏDQİQAT METODU

Oksidləşdirilmiş və kükürləşdirilmiş bitki yağları(GBY və QY) əsasında sürtkülər alınmış, xassələri müqayisəli öyrənilmişdir. İki dəfə kimyəvi modifikasiyaya məruz qalmış (epoksi və dihidroksi törəməli günəbaxan yağının və polisulfidli qarğıdalı yağının üçlübutilkatbamidlə modifikasiya məhsulu) kimyəvi dəyişdirilmiş, günəbaxan yağı və ya qarğıdalı yağı (36 kütlə%) olmaqla reaktora yüklənir, üzərinə T-1500 yağı (50 kütlə %-nin 1/3- i) əlavə edilir, 140-145°C temperaturda 1 saat intensiv qarışdırılır. Sonra reaktorda temperatur 70-78°C-dək azaldılır və kalsium hidroksidin (2.4 kütlə %) suda (6.16 kütlə %) süspenziyasi əlavə edilir. Reaksiya kütləsinin intensiv dispersiyası zamanı turşular neytrallaşdırılır, əlaqəli suyun paralel çıxarılması ilə reaksiya kütləsi 106-115° c temperatura qədər qızdırılır və T-1500 tansformator yağı distillatının qalan 2/3 hissəsi (30-34 kütlə %) əlavə edilir; sürtkünün temperatruru 20°C olana qədər qarışdırılır. Alınmış sürtkülərin fiziki-kimyəvi və triboloji xassələri cədvəl 1-də verilmişdir.

**Cədvəl-1.**

OGBY(TBK) əsdasında hazırlanmış sürtkünün xassələri.

| Sürtkülər | Damcı düşmə T-ru | Kolloid stabillik% | Penet. $10^{-1}$mm | Siyrilmə indeksi, İs | Kritik yük, Pk, N | Qaynaq yükü, Pq, N | Yeyilmə ləkəsinin diametri, Dmm | Bio Parç-ma | Korroziya, q/m$^2$ |
|---|---|---|---|---|---|---|---|---|---|
| | ГОСТ 32322-2013 | ГОСТ 7142-74 | ГОСТ 5346-78 | ASTM D2266 | | | | ASTM D5864 | ГОСТ 5757-67 |
| OGBY(TBK) | 90 | Edilməyib | 170 | 626 | 1274 | 1960 | 0.57 | 86 | davamlı |
| QY(TBK) | 84 | Edilməyib | 220 | 636 | 1274 | 2450 | 0.55 | 84 | davamlı |

Üçlübutilkarbamidlə modifikasiya edilmış günəbaxan və qarğıdalı yağları əsasında alınmış sürtkülərin xassələrinin müqayisəsi diaqramlar ( Şəkil 1) ilə verilmişdir.




**Şəkil 1.** KQY(TBK) və OGBY(TBK) əsasında alınmış sürtkülərin xassələrinin müqayisə diaqramları.

**NƏTİCƏ**

Aparılan tədqiqat nəticəsində yeni növ biosürtkülər alınmış və yüksək triboloji xassələrə malik olduqları müəyyən edilmişdir. Alınmış sürtkülər ətraf mühitdə bioloji parçalanır və ekoloji zərərsizdir.

**ƏDƏBİYYAT SİYAHISI**

1. Bart, J. C. J.; Gucciardi, E.; Cavallaro, S. Science and Technology. In Biolubricants, 1st ed.; Woodhead Publishing Series in Energy; Woodhead Publishing, 2013; Chapter 7.
2. Cecilia, J. A.; Ballesteros Plata, D.; Alves Saboya, R. M.; Tavares de Luna, F. M.; Cavalcante, C. L.; Rodriguez-Castellon, E. An Overview of the Biolubricant Production Process: Challenges and Future Perspectives. Processes 2020, 8, 257.
3. Scrimgeour, C. Chemistry of Fatty Acids. In Bailey's Industrial Oil and Fat Products, 6th ed.; Six Volume Set;Shahidi, F., Ed.; JohnWiley & Sons, Inc., 2005.
4. Technical Committee of the Institute of Shortening and Edible Oils, Inc Food Fats and Oils, 10th ed.; Institute of Shortening and Edible Oils: WA, 2016.
5. Song, J.; Park, J.; Jung, J.; Lee, C.; Gim, S. Y.; Ka, H.; Yi, B. R.; Kim, M. J.; Kim, C.; Lee, J. H. Analysis of Trans Fat in Edible Oils with Cooking Process. Toxicol. Res. 2015, 31, 307−312.

**SUMMARY**

The constant increase in the machinery and equipment park requires an increase in the volume of lubricants and an expansion of the assortment for their efficient use. Vegetable oil-based biolubricants are more expensive than mineral lubricants, but in contrast they have unique properties such as higher viscosity index, superior anti-corrosion properties, higher flash point, good lubricity, greater biodegradability and less water toxicity.

**KEY WORDS:** chemical modification-1, bio lubricants-2, plastic lubricants-3

# ИМПЕДАНСНЫЕ ХАРАКТЕРИСТИКИ – ГАММА ОБЛУЧЕННЫХ ТВЕРДЫХ РАСТВОРОВ $TlInSe_{2(1-x)}S_{2x}$ (x=0,9)

**Н. А. АЛИЕВА, Г. Э. МАМЕДОВА, А. А. РАСУЛОВА**
Институт радиационных проблем НАН Азербайджана
E-mail: gultekin.m_ova@mail.ru
Баку, Азербайджан

**АБСТРАКТ**

Методом импедансной спектроскопии исследован процесс переноса заряда в твердом растворе $TlInSe_{2(1-x)}S_{2x}$ (x=0,9). Установлено, что после γ-облучения монокристаллов твердого раствора $TlInSe_{2(1-x)}S_{2x}$ (x=0,9) происходит фазовый переход в суперион.

**КЛЮЧЕВЫЕ СЛОВА:** суперион, электропроводность, носитель заряда, комплексный импеданса.

**ВВЕДЕНИЕ**

Соединения типа $A^3B^3C^6_2$вызывают интерес в силу анизотропной кристаллической структуры и чувствительности кристаллической решетки к внешним воздействиям. На основе этих соединений разработаны фотоэлектрические преобразователи, детекторы рентгеновского и нейтронного излучения [1–4]. Повышение интереса к изучению соединений на основе $A^3B^3C^6_2$ связано с открытием в последние годы ионной проводимости в соединениях этого класса при температурах, близких к комнатной [5]. Твердые растворы, образующиеся между этими соединениями, интересны для изучения, поскольку создают возможность изменения физических параметров.

Данная работа посвящена экспериментальному исследованию электрофизических свойств монокристаллов твердых растворов $TlInSe_{2(1-x)}S_{2x}$ (x=0,9). Основной задачей данного исследования является изучение комплексной проводимости и диэлектрической релаксации в переменном электрическом поле.

В спектральной области $25\div10^6$ Гц методом импедансной спектроскопии измерены частотные зависимости компонент полного комплексного импеданса и исследованы релаксационные процессы в монокристаллов твердых растворов $TlInSe_{2(1-x)}S_{2x}$ (x=0,9), до, и после радиационного воздействия дозой в 0.1 МГр.

В исследуемых твердых растворах строились годографы в комплексной плоскости (Z′′−Z′) и анализировались полученные диаграммы.

Установлено, что на диаграммах в комплексной плоскости (Z″ –Z′), полученных в результате измерений после облучения γ-квантами, наблюдаются полукруги для одной параллельной RC-цепочки и лучи в низкочастотной области диаграмм. Эти лучи на диаграмме импеданса, вероятно, связаны с диффузным импедансом Варбурга, и в основе этой идеи лежит представление о том, что диффузия носителей в диапазоне частот приложенного синусоидального сигнала не достигает границы диффузного слоя.

Установлено, что после γ-облучения монокристаллов твердого раствора $TlInSe_{2(1-x)}S_{2x}$ (x=0,9) происходит фазовый переход в суперион.

В этом случае, ответственным за наличие диффузного импеданса Варбурга в годографах исследованного кристалла могут быть ионы $Tl^{+1}$ диффундирующие в кристалле, после перехода системы в суперионное состояние, при этом фактором, способствующим мобильности ионов $Tl^{+1}$являются дефекты, вызванные радиационным воздействием.

**ЛИТЕРАТУРА**

1. Hahn, H. Röntgenographische Beiträge zu den Systemen Thallium/Schwefel, Thallium/Selen und Thallium/Tellur / H. Hahn, W. Kleingler // Z. anorg. Chem. – 1949. – Bd. 260. – S. 110–119.

2. Kahsida, S. Ferroelectric phase transition in monoclinic TlS / S. Kahsida, K. Nakamura, S. Katayama // Solid St. Commun. – 1992. – Vol. 82, Iss. 2. – P. 127–130.

3. Мотт, Н. Электронные процессы в некристаллических веществах: в 2 т. / Н. Мотт, Э. Дэвис. – Изд. 2-е, перераб. и доп. – М.: Мир, 1982. – Т. 1. – 368 с.

4. Мустафаева, С. Н. Влияние состава кристаллов TlGa1–xErxSe2 на их диэлектрические характеристики и параметры / С. Н. Мустафаева, М. М. Асадов, Э. М. Керимова // Физика твердого тела. – 2013. – Т. 55, вып. 12. – С. 2346–2350.

5. Сардарлы, Р. М. Особенности проводимости γ-облученных кристаллов TlGaTe2 с наноцепочечной структурой / Р. М. Сардарлы [и др.] // Физика и техника полупроводников. – 2010. – Т. 44, вып. 5. – С. 610–614

**ABSTRACT**

The charge transfer process in the TlInSe2(1-x)S2x (x=0.9) solid solution was studied using impedance spectroscopy. It has been established that after γ-irradiation of single crystals of the TlInSe2(1-x)S2x (x=0.9) solid solution, a phase transition to a superion occurs.

# RESPUBLIKAMIZIN TİCARƏT ŞƏBƏKƏSİNDƏ REALİZƏ OLUNAN YARMA VƏ YARMA MƏHSULLARININ KİMYƏVİ TƏRKİBİ VƏ KEYFİYYƏT GÖSTƏRİCİLƏRİNİN TƏDQİQİ

**LALƏ ŞAMİL QIZI MİKAYILOVA**
Azərbaycan Dövlət İqtisad Universiteti [ UNEC ]
Beynəlxalq Magistratura və Doktorantura Mərkəzi
lalamikayilova777@gmail.com
Bakı şəhəri. Azərbaycan

**Xülasə:** Məqalə respublikamızın ticarət şəbəkəsində realizə olunan yarma və yarma məhsullarının kimyəvi tərkibinin öyrənilməsinə həmçinin bu məhsulların orqanoleptiki və fiziki-kimyəvi keyfiyyət göstəricilərinin tədqiqinə həsr olunmuşdur. Orqaoleptiki üsulla aparılan qiymətləndirmə zamanı yarma və yarma məhsullarının diş altında xırçıldaması, dadı, iyi və xarici görünüşü müəyyən olunmuşdur. Yarma və yarma məhsullarının müxtəlif növləri üzərində aparılan analizlərin nəticələri göstərdi ki, onların orqanoleptiki keyfiyyət göstəriciləri qüvvədə olan standartların (QOST 7022-97, QOST 5784-60, QOST 6292-93, QOST 3034-75, QOST 276-60) tələblərinə uyğundur və bu tələblərdən fərqli xüsusi kənarlaşma halları qeyd edilməmişdir. Fiziki-kimyəvi üsulla aparılan qiymətləndirmə zamanı isə yarma və yarma məhsullarında külün miqdarı, nəmliyin miqdarı, turşuluğun miqdarı və metal qarışıqların miqdarı təyin edilmişdir. Yarma və yarma məhsullarının müxtəlif növləri (buğda, düyü, vələmir yarmaları) üzərində fiziki-kimyəvi üsulla aparılan ekspertizadan alınan nəticələr göstərdi ki, buğda yarmasının „T" markasında nəmliyin miqdarı - 13,5 %, külün miqdarı - 0,58 %, metal qarışıqların miqdarı - 2,11 mq/kq, turşuluğun miqdarı - 2,13 °, „M" markasında nəmliyin miqdarı - 14,0 %, külün miqdarı - 0,55 %, metal qarışıqların miqdarı - 2,01 mq/kq, turşuluğun miqdarı - 2,13°, „MT" markasında nəmliyin miqdarı - 14,6%, külün miqdarı - 0,58%, metal qarışıqların miqdarı - 1,96 mq/kq, turşuluğun miqdarı - 2,25°, düyü yarmasında nəmliyin miqdarı - 12,5%, külün miqdarı - 0,58%, metal qarışıqların miqdarı - 1,80 mq/kq, turşuluğun miqdarı - 2,31°, vələmirdə nəmliyin miqdarı - 12,4%, külün miqdarı - 0,60%, metal qarışıqların miqdarı - 2,11 mq/kq, turşuluğun miqdarı isə 2,36° olmuşdur.

Summary: The article is devoted to the study of the chemical composition of groats and groats products sold in the trade network of our republic, as well as the organoleptic and physico-chemical quality indicators of these products. During the organoleptic assessment, the crunchiness, taste, smell and appearance of split and split products were determined. The results of analyzes of different types of split and split products showed that their organoleptic quality indicators correspond to the requirements of the current standards (GOST 7022-97, GOST 5784-60, GOST 6292-93, GOST 3034-75, GOST 276-60) and this There are no specific cases of deviation from the requirements. During the physical-chemical evaluation, the amount of ash, moisture content, acidity content and the amount of metal mixtures were determined in the grain and grain products. The results of the physico-chemical examination of various types of groats and groat products (wheat, rice, velamir groats) showed that the amount of moisture in the "T" brand of wheat groats was 13.5%, the amount of ash was 0.58%, the amount of metal mixtures amount - 2.11 mg/kg, amount of acidity - 2.13 °, amount of moisture in brand "M" - 14.0%, amount of ash - 0.55%, amount of metal mixtures - 2.01 mg/kg, amount of acidity - 2.13°, the amount of moisture in the "MT" brand - 14.6%, the amount of ash - 0.58%, the amount of metal mixtures - 1.96 mg/kg, the amount of acidity - 2.25°, the amount of moisture in rice groats - 12.5%, the amount of ash - 0.58%, the amount of metal mixtures - 1.80 mg/kg, the amount of acidity - 2.31°, the amount of moisture in velamir - 12.4%, the amount of ash - 0.60%, metal the amount of mixtures - 2.11 mg/kg, and the amount of acidity was 2.36°.

**Açar sözlər:** yarma və yarma məhsulları, qidalılıq dəyəri, kimyəvi tərkibi,oqranoleptik üsul, fiziki-kimyəvi üsul.

**Keywords:** splitting and splitting products, nutritional value, chemical composition, ogranoleptic method, physico-chemical method.

**Giriş.** Bildiyimiz kimi hazırda respublikamıza dünyanın bir çox ölkələrindən müxtəlif çeşidli ərzaq məhsulları, o cümlədən yarma və yarma məhsulları gətirilərək realizə edilir. Gətirilən bu yarma və yarma məhsullarının əhalinin sürətlə artmaqda olan gündəlik tələbatımızı ödəməklə yanaşı olaraq həmçinin keyfiyyətli və insan orqanizmi üçün zərərsiz olmalıdır. Məhz bu baxımdan respublikamıza gətirilən və istehsal olunan ərzaq məhsullarına, o cümlədən yarma və yarma məhsullarının keyfiyyətinə nəzarət artırılmaqla yanaşı, həmçinin onların zərərsizliyinə xüsusi diqqət yetirilməlidir.

Məhz buna görə də aparılan tədqiqat işinin əsas məqsədi respublikamızın ticarət şəbəkəsində realizə olunan yarma və yarma məhsullarının istehlak xassələri və keyfiyyət göstəricilərinin tədqiqinə həsr olunmuşdur.

**Mövzunun aktuallığı.** Hazırda yeyinti sənayesinin ən mühüm sahələrindən biri də yarma və yarma məhsullarıdır. Yarma və yarma məhsulları insanların qida rasionunun əsasını təşkil edən ərzaq məhsullarıdır. Yarma və yarma məhsulları müxtəlif növ dənli bitkilərin emalı prosesi nəticəsində alınan qida məhsuludur. Yarma və yarma məhsulları bir sıra xüsusiyyətlərinə görə digər ərzaq məhsullarından fərqlənirlər. Belə ki, yarma və yarma məhsulları digər qida məhsullarından uzun müddət saxlanmaya, daşınmaya davamlı olması, həmçinin keyfiiyyətinə və qidalılıq dəyərinə görə fərqlənirlər.

Qida məhsullarının, o cümlədən yarma və yarma məhsullarının enerji və qidalılıq dəyərliyi əsasən onların emalı üsullarından, kimyəvi tərkibindən asılıdır.Həmçinin yarma və yarma məhsulları digər məhsullardan tərkibində nişasta, mineral maddələrlə, yağla, əvəzedilməz aminturşularla və triqliseridlərlə zəngin olması ilə fərqlənirlər. Yarma və yarma məhsullarının kimyəvi tərkibi və enerji dəyərliliyi haqqında aşağıda qeyd edilən 1 saylı cədvəldə ətraflı məlumat verilmişdir.

**Cədvəl 1.** Yarma və yarma məhsullarının kimyəvi tərkibi və enerji dəyərliyi.

| **Yarma və yarma məhsulların növləri** | **Şəkər** | **Kül** | **Yağ** | **Azotlu maddə** | **Sellüloza** | **Nişasta** | **Enerji dəyərliyi 100 q-la** |
|---|---|---|---|---|---|---|---|
| Qarğıdalı | 1,6 | 0,8 | 2,1 | 10,0 | 1,3 | 85,0 | 325 |
| Arpa | 0,6 | 1,16 | 1,2 | 9,0 | 1,25 | 86,0 | 325 |
| Darı | 0,16 | 1,4 | 2,5 | 11,6 | 0,66 | 83,4 | 330 |
| Düyü | 0,6 | 0,7 | 0,6 | 6,0 | 0,30 | 88,0 | 327 |
| Qarabaşaq | 0,30 | 2,12 | 2,1 | 12,0 | 2,00 | 82,0 | 325 |
| Vələmir | 0,26 | 2,26 | 6,0 | 16,0 | 2,85 | 72,0 | 352 |
| Noxud | 0,32 | 2,41 | 2,6 | 26,0 | 2,20 | 66,2 | 330 |
| Mannı | 0,97 | 0,55 | 0,9 | 12,8 | 0,25 | 84,2 | 333 |

Cədvəldə göründüyü kimi digər yarma növləri ilə müqayisədə paxlalı, düyü və qarabaşaq dənlərinin yarmalarının tərkibində dəyərli aminturşuları ilə zəngin olan zülallar vardır. Məhz bu zülallar yarmaların qidalılıq dəyərini daha da artmasına səbəb olur.Lakin bütün yarma növlərində nişasta və azotlu maddələr üstünlük təşkil edirlər. Yarma və yarma məhsullarının tərkibində digər maddələrlə müqayisədə şəkər və sellüloza azlıq təşkil edir. Belə ki, cədvəldə göründüyü kimi şəkərin miqdarı 0,6-1,6 %, sellülozanın miqdarı isə 0,30-2,85 % arasında dəyişir. Qeyd etmək lazımdır ki, yarmalarda şəkər əsasən xörəyin dadına təsir etdiyi halda, sellüloza isə yarmaların həzm olunmasına və kulinariya xüsusiyyətinə təsir etmə qabiliyyətinə malikdir (Əhmədov Ə.İ., Musayev N.X. 2005; Əliyev M. T., Musayev N.X. 1999).

Yarma və yarma məhsulları arasında yüksək qidalılıq dəyərinə malik olan yarma mannı yarması hesab olunur. Bu yarmanın belə yüksək dəyərliyə malik olması onun tərkib xüsusiyyətindən asılıdır. Belə ki, mannı yarmasının tərkibində 0,97 % - şəkər, 0,55 % - kül , 0,25 % - sellüloza, 0,9 % - yağ, 12,8 % - azotlu maddə və 82,2 % - nişasta vardır. Müəyyən olunmuşdur ki, 100 q mannı yarması – 333 k/kal enerjivermə qabiliyyətinə malikdir. Həmçinin mannı yarmasının tərkibində $B_1$- vitamini – 1 mq, $B_2$ – vitamini 0,5 mq və PP -10 mq vitamini vardır ( Салуп И.П. и др. М.; Экономика 1981).

Əhali tərəfindən geniş istifadə olunan yarmalardan biri də cilalanmış buğda yarmasıdır. Bu yarma xüsusi kimyəvi tərkib xüsusiyyəti ilə xarakterizə olunur. Belə ki, bu yarmanın tərkibində 2-3% -

şəkər, 1-1,6% - yağ, 0,3-0,5% - sellüloza, 0,9-1,16% - kül, 13-15% - yağ, 75-77% - nişasta vardır. Həmçinin bu yarmanın tərkibində 4 mq-$B_1$, 1,5 mq-$B_2$, 15 mq-PP vitaminləri, karotin və biotin vardır.

Buğda yarmasının tərkibində eyni zamanda 5 makro və mikroelementlər vardır. Müəyyən olunmuşdur ki, 100 qram buğda yarması – 300 kkal enerjivermə qabiliyyətinə malikdir (Əhmədov Ə.İ., Musayev N.X. 2005).

Hazırda yüksək qidalılıq dəyərinə malik yarmalardan biri də düyü yarmasıdır. Bu yarmanın qidalılıq dəyəri onun kimyəvi tərkibi xarakterizə olunur. Düyü yarmasının tərkibində orta hesabla 0,4 – 0.5 % - kül, 0,5 – 0.6 % - yağ, 0.19 – 0.41 % - sellüloza, 8 – 11 %- zülal, 3,0 %- karbohidrat və 83 – 87 %-ə qədər nişasta vardır. Bununla yanaşı olaraq bu yarmanın tərkibində həmçinin 0,3 mq / kq – $B_2$, 20 mq / kq PP və 0.8 mq / kq – $B_1$ vitaminləri vardır (Казаков Е. Д., Кретович В. Л. 1981).

Yüksək qidalılıq dəyərinə malik yarmalardan biri də arpa yarmasıdır. Arpa yarmasının əsas tərkib hissəsi bir sıra dəyərli maddələrdən ibarətdir. Belə ki, arpa yarmasının tərkibində 1,0 – 1,7 % - kül, 2,4 – 3,5 % - penzolar, 0,8 – 1,9 % - sellüloza, 1,2 – 1.7 % - yağ, 2,1 – 3,2 % - şəkər, 73 – 78 % - nişasta, 14 – 15 % - zülal vardır. Həmçinin bu yarmanın tərkibində bir sıra vitaminlər də vardır. Belə vitaminlərdən $B_1$ – 2,5 mq / kq, $B_2$ – 0,9 – 1,0 mq / kq və PP – 22 mq / kq göstərmək olar. Bununla yanaşı olaraq bu yarmanın tərkibində mis, sink, flor, manqan, 3 mq % - dəmir və brom vardır. Müəyyən olunmuşdur ki, 100 qram arpa yarması 300 kkal enerjivermə qabiliyyətinə malikdir (Əhmədov Ə.İ., Musayev N.X. 2005; Əliyev M. T., Musayev N.X 1999).

Əhali tərəfindən istifadə olunan yarmalardan biri də qarğıdalı yarmasıdır. Bu yarma kimyəvi tərkibinə görə 0,4 – 0,8 % - sellüloza, 1,6 – 2,5 % - yağ, 1,9 – 2,0 % - şəkər, 82 – 83 % - nişasta, 9 – 12 % - zülallardan ibarətdir. Həmçinin bu yarmanın tərkibində $B_1$ – 1,5 mq / kq, $B_2$ – 0,7 - 0,9 mq / kq və PP – 6 - 10 mq / kq vitaminləri vardır (Əliyev M. T., Musayev N.X. 1999 ; Салуп И.П. и др. 1981).

Yüksək bioloji dəyərliliyə malik yarmalardan biri də darı yarmasıdır. Bu yarma qida rasionumuzda xüsusi əhəmiyyətə malik olmasına baxmayaraq, onların tərkibind' olan zülallar az dəyərli zülallar hesab olunur. Darı yarmasının tərkibində 1,1 – 1,5 % - kül, 0,6 – 0,8 % - sellüloza, 2,7 – 3,7 % - yağ və 2 % - şəkər vardır. Həmçinin bu yarmanın tərkibində $B_1$ – 4 mq / kq, $B_2$ – 0.6 – 1 mq / kq , 10 – 12 mq / kq – PP vitaminləri vardır.

Hazırda əhali tərəfindən istifadə olunan yarmalardan biri də qarabaşaq yarmasıdır. Bu yarma digər yarmalardan yüksək qidalılıq dəyərliyi ilə xarakterizə olunur. Bu yarmanın yüksək dəyərliliyə malik olması əsasən onun tərkib xüsusiyyətindən asılıdır. Belə ki, bu yarmanın tərkibində 2,6 – 3 % - yağ, 2,3 % - şəkər, 70 – 71 % - nişasta, 13 – 16 % - zülal, 2 % -ə qədər mineral maddələr vardır. Qarabaşaq yarmasının tərkibində olan zülalların çox hissəsi albumin, qlobulin və aminturşularından ibarətdir. Həmçinin bu yarmanın tərkibində bir sıra dəyərli vitaminlər vardır. Belə vitaminlərdən $B_1$ – 6,0 mq %, $B_2$ – 2,0 mq %, PP – 60 mq % və mikroelementlər isə P - 150 mq % və Ca – 200 mq % göstərmək olar (Салуп И.П. и др. 1981 ; Казаков Е. Д., Кретович В. Л. 1981).

Hazırda geniş realizə olunan yarmalardan biri də vələmir yarmasıdır. Bu yarmanın qidalılıq dəyərliyi onun kimyəvi tərkib xüsusiyyətlərindən asılıdır. Belə ki, bu yarmanın tərkibində 1,6 – 2,5 % - kül, 2 % - pektin, 2 % - lesitin, 6 – 8 % - yağ, 60 – 65 % - nişasta və 12 – 16 % - zülal vardır. Həmçinin bu yarmanın tərkibində $B_1$ - 5 mq / kq, $B_2$ – 1,5 mq / kq və PP – 6 – 22 mq / kq vitaminləri vardır. Bu yarmanın əsasını təşkil edən zülal 15 – 20 % prolamin – avenin, 16 – 25 % - avenalin, 18 – 19 % albumin və 40 % - qlütelindən ibarətdir. Zülalın mənimsəmə qabiliyyəti - 70 %, yağ – 85 % və karbohidratın isə 95 % təşkil edir.

Yarma və yarma məhsulları arasında əhali tərəfindən istifadə olunan və yüksək qidalılıq dəyərinə malik yarmalardan biri də qarğıdalı yarmasıdır. Qarğıdalı yarmaları - ağ və sarı dənli bərk qarğıdalıdan, ağ dənli dişformalı qarğıdalıdan və partlayan sortlardan hazırlanır. Qarğıdalı yarması cilalanmış olmaqla 5 növdə buraxılır. Qarğıdalı yarmasından kotletlər, sıyıq və digər kulinariya məhsulları hazırlanır.

Qarğıdalı lopası istehsal etmək üçün xırda və iri bütöv qarğıdalı yarması əldə edilir. Qarğıdalı lopasını hazırladıqda qarğıdalı təmizlənir, isladılır, rüşeymi ayrılaraq xırdalanır, sonra bunlar su, səməni ekstraktı, şəkər və duzdan ibarət olan şirədə bişirilir, qurudulur, buxara verilir, səthi hamar vallardan keçirilib yastılaşdırılır və qovrulur. Qarğıdalı lopaları zülal, vitamin və minerallarla zəngindir. Qarğıdalı lopaları yalnız çox sağlam bir məhsul deyil, həm də pəhriz zamanı böyük köməkdir, onlar aşağı kalorili yeməyin əsasına çevrilə bilir. Lopa 3 sadə inqrediyentdən hazırlanır: üzvi qarğıdalı, üzvi meyvə şirəsi konsentratı və dəniz duzu. Hər porsiyada cəmi 2 q şəkər var.

Qarğıdalı lopaları tərkibinə görə (lif, amin turşulan, pektinlər, qlutamik turşu) əhval-ruhiyyəni yaxşılaşdırmağa kömək edir. Həmçinin beynin metabolik proseslərini sürətləndirir və yaddaşı yaxşılaşdırır, əzələ toxumasını və sinir hüceyrələrini gücləndirir, mədə-bağırsaq traktının fəaliyyətini yaxşılaşdırır. Buna görə də, qarğıdalı lopaları balanslaşdırılmış pəhriz qidası hesab olunur, o, uşaqların, vegetarianların və diabetli insanların pəhrizinə daxil edilə bilər.

Qarğıdalıdan partladılmış dən hazırladıqda qarğıdalı təmizlənir, rüşeymi ayrılır və xüsusi aparatlarda (qazanlarda) təzyiq altında qovrulur. Qazanın qapağı dərhal açılır və dənin daxilindəki boşluqlarda olan təzyiqlə, ətraf mühitin təzyiqi arasındakı fərq nəticəsində dənlər partlamağa başlayır. Dənin həcmi 4-6 dəfə genişlənir, yumşaq pambığaoxşar quruluşa malik olur. Şəkərlə emal olunmuş qarğıdalı lopaları və havalı qarğıdalı kökəlməyə meyilli və şəkərli diabet xəstəliyi olanlar üçün qətiyyən məsləhət görülmür.

Saqo demək olar ki, təmiz nişastadır, bir növ karbohidratdır. Saqo yarması yapışqanlaşdırılmış nişastanın xırda dənəciklərindən ibarətdir. Saqo bəzi tropik palmaların gövdələrinin öz ağacından çıxarılan bir nişasta növüdür. Yüksək qidalı və asanlıqla həzm olunan yeyinti məhsuludur. Qlütensizdir və taxılsız pəhriz saxlayanlar üçün uyğundur. Saqo su ilə qarışdırılaraq yeyilə bilər, çörəkçilikdə un kimi istifadə edilə bilər. Saqo ölçülərinə görə iki nömrədə, keyfiyyətindən asılı olaraq əla və 1-ci sort buraxılır.

**Tədqiqatın məqsədi.** Yarma və yarma məhsullarının istehlak xassələrini və keyfiyyət göstəricilərinin qiymətləndirilməsi zamanı iki əsas metoddan: orqanoleptiki və fiziki-kimyəvi istifadə olunmuşdur. Orqanoleptiki metoddan istifadə etməklə yarma və yarma məhsullarının dadı, iyi, diş altında xırçıltısı və xarici görünüşü müəyyən olunmuşdur. Fiziki-kimyəvi metodla yarma və yarma məhsullarında külün miqdarı, nəmliyi miqdarı, turşuluğun miqdarı və metal qarışıqlarının miqdarı təyin olunmuşdur.

**Nəticə**

Hazırda respublikamızın ticarət şəbəkəsində realizə olunan yarma və yarma məhsullarının istehlak xassələri və keyfiyyət göstəricilərinin tədqiqi zamanı bir sıra nəticələrə nail olunmuşdur. Bu nəticə aşağıdakılardan ibarətdir :

**1.** Yarma və yarma məhsulları üzərində aparılan qiymətləndirmədən alınan nəticələr göstərdi ki, bu məhsulların orqanoleptiki keyfiyyət göstəriciləri (QOST 5551 – 75 ; QOST 21150 – 80 ; QOST 6293 – 94 ; QOST 3035 – 76 ; QOST 7023 – 98 ; QOST 5785 – 61 ; QOST 277 – 61) tələblərinə uyğundur və bu standartlardan fərqli olaraq kənarlaşmalar müşahidə olunmamışdır.

**2.** Yarma və yarma məhsullarının xarakterik növü olan buğda yarmasının mannı yarması üzərindən aparınlan qiymətləndirmələrdən alınan nəticələr göstərdi ki, bu yarmada nəmlik – 15,4 %, külün miqdarı – 0,65 %, turşuluğun miqdarı 2,32 %, metal qarışıqların miqdarı isə 1,98 % olmuşdur.

**3.** Yarma və yarma məhsullarının digər bir növü olan düyü yarması üzərində aparılan qiymətləndirmələrdən alınan nəticələr göstərdi ki, yarmanın bu növündə nəmliyin miqadarı – 15,2%, külün miqdarı – 0,68 %, turşuluğun miqdarı – 2,4 %, metal qarışıqlarının miqdarı 1,94 % olmuşdur.

**4.** Yarma və yarma məhsullarının daha bir növü olan qarabaşaq yarması üzərində aparılan qiymətləndirmədən alınan nəticələr göstərdi ki, yarmanın bu növündə nəmliyin miqdarı – 15,0 %, külün miqdarı – 0,60 %, turşuluğun miqdarı – 2,0 %, metal qarışıqların miqdarı isə - 1,90 % olmuşdur.

**ƏDƏBİYYAT**


1. Əhmədov Ə.İ., Musayev N.X. "Ərzaq mallarının ekspertizası". Bakı, Çaşoğlu, 2005 – 568 s.
2. Əliyev M. T., Musayev N.X. "Taxıl, un, qənnadı məhsullarının əmtəəşünaslığı və keyfiyyətinin ekspertizası". Bakı, Çaşoğlu, 1999 – 532 s.
3. Салуп И.П. и др. Товароведение зерномучных и кондитерских товаров. М.; Экономика 1981 - 158 с.
4. Казаков Е. Д., Кретович В. Л. Биохимия зерна и продуктов его переработки. М.; "Агропромиздать'', 1981, -216 с.
5. Семененко С.В. Экспертиза товаров. Белгород: БУПК, 1999.- 298 с.

# ИССЛЕДОВАНИЕ ПРОИЗВОДНЫХ 2-АМИНОТИАЗОЛА В КАЧЕСТВЕ ИНГИБИТОРОВ КИСЛОТНОЙ КОРРОЗИИ МЕТАЛЛОВ

**ВАГИФ ФАРЗАЛИЕВ, МАЛАХАТ АББАСОВА, МЗИЯ МИРЗОЕВА, ВЕЛИ КЯЗИМОВ, ЛЕЙЛА САФАРОВА, ЛЕЙЛА ШАХГЕЛЬДИЕВА, ГЮЛЬНАР КЯЗИМОВА, НАБАТ АЛИЕВА**

Институ химии присадок имени академика Али Кулиева
Министества науки и образования Азербайджанской Республики
*email:leyla.aki@mail.ru*
БАКУ, АЗЕРБАЙДЖАН

**РЕФЕРАТ**

В данной работе приведены результаты гравиметрических исследований антикоррозионных свойств 2-аминометильных, 2-алкоксиметильных производных 2-аминотиазола и 2-азидометиламинотиазола в отношении углеродистой стали марки Ст-3 в кислой среде, создаваемой 0.1 N растворами HCl и $H_2SO_4$ при температуре 20$^oC$. Известно, что наиболее рациональным методом защиты оборудования и изделий из металлов от воздействия агрессивной среды является применение ингибиторов коррозии. Однако имеющегося ассортимента ингибитров недостаточно для обеспечения потребности в них. Поэтому синтез новых химических соединений, обладающих высокими защитными свойствами, не теряет своей актуальности. Для целенаправленного научного подхода к поиску и прогнозированию таких структур необходимы базы данных наиболее эффективных структурных фрагментов. С этой целью в работе проведены исследования схожих структур, отличающихся между собой фрагментами в положении 2. Установлено, что исследуемые соединения при температуре 20$^oC$ эффективно ингибируют коррозию углеродистой стали в кислых средах. Все испытанные соединения в растворе соляной кислоты проявляют высокую защитную активность. Скорость коррозии снижается от 3.6 до 0.79 - 0.035 г/м$^2$·ч, степень защиты составляет 78.1 - 99.0%. В растворе серной кислоты скорость коррозии снижается от 6.6 до 1.28 - 0.34 г/м$^2$·ч, степень защиты достигает 80.6 – 94,7%. Показано, что противокоррозионная активность синтезированных производных 2-аминотиазола зависит от природы заместителя, а наибольшим защитным эффектом обладает 2-азидометиламинотиазол, который при концентрации 100 мг/л практически полностью (99%) предотвращает коррозию стали в соляной кислоте.

**КЛЮЧЕВЫЕ СЛОВА: 2-Аминотиазол, аминометильные производные, алкоксиметильные производные, 2-азидометиламинотиазол, кислотная коррозия металлов, ингибиторы, углеродистая сталь**

This paper presents the results of gravimetric studies of the anticorrosion properties of 2-aminomethyl, 2-alkoxymethyl derivatives of 2-aminothiazole and 2-azidomethylaminothiazole in relation to St-3 carbon steel in an acidic environment created by 0.1 N solutions of HCl and H2SO4 at a temperature of 20°C. It is known that the most rational method of protecting equipment and metal products from exposure to aggressive environments is the use of corrosion inhibitors of structural fragments. For this purpose, the work carried out studies of similar structures that differ from each other in fragments in position 2. It has been established that the compounds under study at a temperature of 20°C effectively inhibit the corrosion of carbon steel in acidic media. All tested compounds exhibit high protective activity in a solution of hydrochloric acid. The corrosion rate decreases from 3.6 to 0.79 - 0.035 g/m$^2$·h, the degree of protection is 78.1 - 99.0%. In a sulfuric acid solution, the corrosion rate decreases from 6.6 to 1.28 - 0.34 g/m$^2$·h, the degree of protection reaches 80.6 - 94.7%. It has been shown that the anticorrosion activity of the synthesized 2-aminothiazole derivatives depends on the nature of the substituent, and 2-azidomethylaminothiazole has the greatest protective effect, which at a concentration of 100 mg/l almost completely (99%) prevents corrosion of steel in hydrochloric acid.

**KEY WORDS: 2-Aminothiazole, aminomethyl derivatives, alkoxymethyl derivatives, 2-azidomethylaminothiazole, acid corrosion of metals, inhibitors, carbon steel**

**ВВЕДЕНИЕ**

Известно, что металлы играют важную роль в развитии цивилизации. Однако под воздействием окружающей среды происходит коррозия металлов, приводящая к его разрушению. По имеющимся данным около 10 % ежегодно добываемого в мире металла теряется в результате коррозионных разрушений, при этом потери связаны не только с порчей металла, но и с выходом из строя дорогостоящего оборудования. Быстрые темпы развития технологий и промышленности предъявляют высокие требования к стойкости металла и долговечности металлических конструкций.

Наиболее экономичным и практичным способом защиты металлов от коррозии является использование ингибиторов коррозии, защитное действие которых основано на способности некоторых химических соединений значительно уменьшать или подавлять коррозионный процесс при их введении в соответствующую агрессивную среду в малых концентрациях. Основными требованиями, предъявляемыми к ингибиторам, являются их высокие защитные свойства и отсутствие негативного воздействия на технологические процессы. Защитное действие ингибитора в общем случае заключается в том, что он адсорбируется на поверхности металла, образуя тонкое покрытие, и тем самым предотвращает контакт металла с агрессивной средой. По механизму своего действия любой ингибитор не должен взаимодействовать с окружающей средой, а защитные слои, создаваемые ингибитором всегда тоньше, чем поверхность металла.

В большинстве своем ингибиторы коррозии – это серу-, азот-, фенол-, кислородсодержащие соединения, имеющие в своей структуре амино-, имино-, тио-, полиоксиметилен-, фенил- и другие группы.

Среди ингибиторов, используемых для защиты углеродистой стали, хорошо известен 2-меркаптобензотиазол (МБТ). Однако при низких концентрациях он вызывает питтинговую коррозию, которая затем переходит в локальную. Широкое применение получил контакный ингибитор бензотриазол (БТА), который образует с металлами полимерные соединении, нерастворимые в воде. Тем не менее, следует отметить, что этот ингибитор канцерогенен и требует осторожного обращения. Проведены детальные исследования 2-меркапто-бензимидазола в качестве ингибитора низкоуглеродистой стали в фосфорной кислоте. На основе 2-меркаптобензимидазола синтезированы его S-алкилзамещенные производные и исследованы их ингибирующие коррозию свойства в отношении стали марки С38 в 1.0 М растворе HCl (Damej et al., 2021). В результате испытаний установлено, что S-додецил-производное вышеуказанного соединения обеспечивает большую защиту, чем его S-гексил-производное (95.7% и 90.0% соответственно). Известны исследования антикоррозионной активности 2-аминотиазола и его 4-метил-, 4-фенил- и 4-нафтил-производных по отношению к стали марки Ст-3, проведенные в обводненном реактивном топливе (Карпов и др., 2001). Исследования показывают, что эти соединения обладают противокоррозионными свойствами, и их эффективность увеличивается в следующем ряду: 2-аминотиазол < 2-амино-4-метилтиазол < 2-амино-4-фенилтиазол < 2-амино-4-(1-нафтил)тиазол. Таким образом, результаты двух вышеуказанных исследований свидетельствуют о том, что ингибирующие свойства зависят не только от структуры соединений, но и от природы заместителя в его производном.

Ингибиторы коррозии широко используются в нефтяной и газовой промышленности. В настоящее время известно более трех тысяч различных ингибитров, предназначенных для использования в различных отраслях и средах. Однако практическое применение нашли лишь несколько десятков. В связи с тем, что ингибиторы коррозии являются наиболее рациональными средствами защиты металлов от различных видов коррозии, поиск, синтез, исследование и разработка новых органических соединений, обладающих высокими защитными свойствами, не теряет своей актуальности.

Ранее нами впервые были синтезированы 2-аминометильные (Фарзалиев и др, 2017), 2-алкоксиметильные (Farzaliev et al., 2020) производные 2-аминотиазола, а также его 2-азидометильное производное (Fərzəliyev və b., 2023). Целью настоящей работы являлось исследование их антикоррозионных свойств и установление зависимости ингибирующей активности указанных производных от природы заместителя в положении 2.

**МЕТОДЫ ИССЛЕДОВАНИЯ**

Аминометильные производные получали взаимодействием 2-аминотизола с аминалями (метилен-бис-аминами) в присутствии трифторуксусной кислоты по схемам (1), (2) (Фарзалиев и др, 2017):







$R_2$ = $(CH_3)_2$ (**1**), $(C_2H_5)_2$ (**2**), (**3**), O (**4**), O (**5**)

Взаимодействием 2-аминотиазола с полуформалями соответствующих гидроксилсодержащих соединений получали 2-алкоксиметиламинотиазолы по схемам (3), (4) (Farzaliev et al., 2020):







R = $CH_2CH_2OCH_3$ (**6**), $CH(CH_3)_2$ (**7**)

In addition, the article highlights the importance of compaction and preservation measures for freshly placed concrete to ensure optimal strength, durability and resistance to environmental factors. It provides valuable insights into the planning and execution of concrete works and offers practical guidance for construction professionals.

**Keywords:** concrete, material, monolithic, soil, structures

**Giriş**

Beton dünya miqyasında ən çox istifadə edilən tikinti materiallarından biridir. Bina və körpülərdən tutmuş bəndlərə və yollara qədər müxtəlif infrastruktur layihələrində istifadə olunur. Onun universallığı, davamlılığı və sərfəliliyi onu müasir tikintidə əvəzolunmaz edir.

Sürətli urbanizasiya və əhalinin artımı ilə bütün dünyada infrastrukturun inkişafına artan tələbat var. Yeni binaların, nəqliyyat şəbəkələrinin və kommunal xətlərin tikintisi beton və dəmir-betondan geniş istifadəni zəruri edir.

Mühəndislik və tikinti texnikasındakı irəliləyişlər davamlı olaraq beton istehsalında yeniliklərə təkan verir. Yüksək performanslı beton, özünü sağaldan beton və ultra yüksək performanslı beton (UHPC) kimi texnikalar davamlı olaraq inkişaf edir və təkmilləşdirilmiş xüsusiyyətlər, performans təklif edir.

Dəmir-beton konstruksiyalar binaların və infrastrukturun təhlükəsizliyinin və dayanıqlığının təmin edilməsində mühüm rol oynayır. Dəmir-beton layihələndirmə və tikinti prinsiplərini başa

düşmək mühəndislər, memarlar və tikinti mütəxəssisləri üçün tikilmiş aktivlərin struktur bütövlüyünü və uzunömürlülüyünü təmin etmək üçün vacibdir.

Yekun olaraq qeyd edək ki, tədqiqat mövzusu tikintidə geniş tətbiqi, davam edən texnoloji irəliləyişlər, ekoloji mülahizələr, struktur bütövlüyü ilə bağlı narahatlıqlar, tənzimləyici tələblər və iqtisadi nəticələrə görə çox aktualdır. Beton istehsalı və dəmir-beton təcrübələrinin hərtərəfli başa düşülməsi tikinti sənayesində iştirak edən maraqlı tərəflər üçün bu problemlərin effektiv şəkildə həll edilməsi və cəmiyyətin artan infrastruktur ehtiyaclarını davamlı şəkildə qarşılamaq üçün vacibdir.

**Material və metod**

Betonlar - bağlayıcı materialın (sement), incə aqreqatın (qum), qaba aqreqatın (çınqıl və ya çınqılların), suyun və lazım olduqda, bərkidilməni yaxşılaşdıran xüsusi əlavələrin qarışıq və sıxılmış qarışığının bərkidilməsi nəticəsində əldə edilən süni daş materiallardır. betonun keyfiyyəti. Sərtləşmədən əvvəl bu qarışıq beton qarışığı adlanır. Əksər su təchizatı və kanalizasiya sistemləri tamamilə və ya qismən beton və dəmir-beton konstruksiyalardan tikilir. İşin yerinə yetirilmə üsulundan asılı olaraq monolit, prefabrik və prefabrik-monolit konstruksiyaları qabaqcadan gərginləşdirilməmiş və gərginləşdirilmiş armaturlarla fərqləndirir.

Monolit konstruksiyalar birbaşa tikinti sahəsində qurulur; prefabrik konstruksiyalar fabriklərdə və ya prefabrik beton sahələrində istehsal olunan məhsullardan yığılır; prefabrik monolit konstruksiyalar hazır yığma elementlərdən yığılır və eyni zamanda bu elementləri vahid bütövlükdə birləşdirən strukturun monolit hissələrini düzəldirlər [1, s. 78].

Su təchizatı və kanalizasiya sistemləri üçün həcmli strukturların tikintisi zamanı strukturun əsas dibi, eləcə də künclərdəki divarların monolit hissələri monolit betondan tikilir. Bəzən bütün struktur (alt və divarlar) monolitik dəmir-betondan tikilir. Beton işləri təməlin hazırlanması, hidroizolyasiya, kalıplama, armatur və beton işləri ilə müşayiət olunur.

Çən konstruksiyalarının diblərinin betonlanmasına aşağıdakılar quraşdırıldıqdan sonra başlanır: − çınqıl hazırlığı – 100...200 mm; − beton hazırlığı – 100…150 mm; − hamarlayıcı sement şapı – 25…30 mm; − dibinin hidroizolyasiyası; − qalınlığı 25...30 mm və ya asfalt 30...50 mm olan sement-qum məhlulundan hazırlanmış qoruyucu ştamp. Dibinin betonlanması armaturun quraşdırılması və betonla tökülməsini əhatə edir [3, s. 67].

Sıx bünövrə qruntları olduqda çınqıl və beton çuxura birbaşa iş sahəsinə verilir, ekskavatorda və ya əl ilə quraşdırılmış xüsusi hamarlayıcılarla hamarlanır. Yumşaq qruntlarda, çuxura daxil olmaq mümkün olmayan və ya planda nəzərdə tutulmuş strukturun ölçüsü kiçik olduqda, çınqıl və beton qarışığının tədarükü üçün birbaşa özüboşaldan yük maşınlarından yüklənmiş vibrasiyalı oluklardan istifadə olunur. Beton, həmçinin zavodda qarışıqla yüklənmiş vedrələrdə yelçəkən kranlar vasitəsilə tədarük edilir və maşınlarda və ya özüboşaltma maşınları ilə gətirilən qarışıqla sahəyə çatdırılır. Bu məqsədlər üçün çuxurun kənarı boyunca hərəkət edən lentli beton səkilərdən, həmçinin yük maşınlarında quraşdırılan beton nasoslardan da istifadə olunur.

Quruluşların işçi təsvirləri əsasında strukturun bu və ya digər hissəsində dəmir-betonun həcmi müəyyən edilir. Quruluşa qoyulan betonun həcmlərinə əlavə olaraq, əlaqəli işlərin həcmini - möhkəmləndirmə, kalıplama, betonlama üçün səthlərin hazırlanması və lazım olduqda bəzi digər işlərin həcmini müəyyən etmək lazımdır. Təxmini hesablamalar üçün bu göstəricilərin Cədvəl 1-dəki məlumatlara əsasən götürülməsinə icazə verilir. Layihə menecerinin göstərişi ilə hər hansı əlaqəli işin həcmləri müvafiq bölmədə faktiki struktur hesablamaların nəticələrinə əsasən hesablana bilər (məsələn, forma hesablamalarının nəticələrinə əsasən) və ya onların xüsusi göstəriciləri təyin edilə bilər (üçün məsələn, möhkəmləndirmə faizi).

**Cədvəl 1: Quruluşların betonlanması zamanı əlaqəli işlərin təxmini xüsusi həcmləri**

| Quruluş növü | 1 $m^3$ beton üçün əlaqəli işlərin növünə görə xüsusi xərc göstəriciləri | |
|---|---|---|
| | armatur, kq | qəlib, $m^2$ |
| Kütləvi möhkəmləndirilməmiş | 10-15 | 0,16 |
| Kütləvi, yüngülcə gücləndirilmiş | 15-30 | 0,24 |
| Güclü şəkildə gücləndirilmiş nazik divarlı | 50-120 | 0,4 |

**Mənbə: [2, s. 126]**

Beton qarışığının daşınmasına onun beton zavodundan tikinti sahəsinə çatdırılması və bütün yükləmə-boşaltma ilə birbaşa döşənmə sahəsinə çatdırılması, eləcə də betonlama bloku boyunca

paylanması daxildir. Beton qarışığının daşınması üçün onun ilkin hərəkət qabiliyyətindən, bərkitmə sürətindən, istifadə olunan sementdən, daşınma məsafəsindən, yol şəraitindən, gediş müddətindən, həddindən artıq yüklənmələrin sayından və daşımanın temperatur və rütubət şəraitindən asılı olaraq, betonqarışdıran maşınlar, beton maşınları, özüboşaltıcılar, eləcə də beton nasoslar, kəmər konveyerlər və köməkçi nəqliyyat istifadə edilə bilər.

Avtomobil nəqliyyatı tez-tez paletli, pnevmatik təkər, yük maşını və qüllə kranları ilə birlikdə istifadə olunur. Beton qarışığının döşənməsinə betonun betonlama blokuna verilməsi, beton qarışığının qəbulu, hamarlanması və sıxılması, təzə döşənmiş betona qulluq daxildir. Formaların yaxşı doldurulması üçün beton qarışığın sıxılması lazımdır. Bir qayda olaraq, sıxılma müxtəlif növ vibratorlarla (səth, raf, dərin və s.) qarışıqdan hava çıxarılır ki, bu da betonun homojenliyini, suya davamlılığını, şaxtaya davamlılığını və möhkəmliyini artırır [4].

Beton döşəndikdən sonra onu həm həddindən artıq istiləşmədən, həm də donmadan, nəmin buxarlanmasından, günəş radiasiyasının təsirindən və s.-dən qorumaq lazımdır. Betonun güc qazandığı müddətdə bütün mövsümlərdə tələb olunan normal sərtləşmə şəraitini təmin edəcək bir sıra tədbirləri qeyd etmək lazımdır.

## Nəticə

Yekun olaraq qeyd edək ki, beton və dəmir-beton işlərinin istehsalı müasir tikinti təcrübəsinin əsas istiqamətidir. Ən çox istifadə olunan tikinti materiallarından biri olan beton bütün dünyada infrastrukturun inkişafında mühüm rol oynayır. Onun universallığı, davamlılığı və qənaətcilliyi onu yaşayış binalarından tutmuş körpülər və bəndlər kimi irimiqyaslı infrastruktura qədər müxtəlif tikinti layihələrində əvəzolunmaz edir.

Bundan əlavə, mühəndislik texnikasındakı irəliləyişlər beton istehsalında innovasiyalara təkan verməkdə davam edir və təkmilləşdirilmiş xüsusiyyətlərə malik yüksək məhsuldar materialların inkişafına gətirib çıxarır. Tikinti sənayesi inkişaf etdikcə, davamlı təcrübələrə, o cümlədən beton istehsalı ilə bağlı karbon emissiyalarının azaldılmasına və alternativ materialların və texnologiyaların tətbiqinə diqqət artır.

Qeyd edək ki, dəmir-beton konstruksiyaların struktur bütövlüyünün və təhlükəsizliyinin təmin edilməsi mühəndislər, memarlar və inşaat mütəxəssisləri üçün əsas prioritet olaraq qalır. Tikinti qaydalarına və qaydalarına uyğunluq tikilmiş aktivlərin keyfiyyətinə və təhlükəsizliyinə zəmanət vermək və bununla da infrastrukturun ümumi dayanıqlığına töhfə vermək üçün vacibdir.

Ümumilikdə, beton istehsalı texnologiyaları, dəmir-beton dizayn prinsipləri və tənzimləyici tələblərin hərtərəfli başa düşülməsi tikinti sənayesində maraqlı tərəflər üçün çox vacibdir. Ən yaxşı təcrübələrə riayət etməklə və texnoloji irəliləyişləri əhatə etməklə, beton və dəmir-beton işlərinin istehsalı davamlılığı, təhlükəsizliyi və iqtisadi inkişafı təşviq etməklə yanaşı, cəmiyyətin inkişaf edən ehtiyaclarını qarşılamağa davam edə bilər.

## Ədəbiyyat siyahısı

1. Abbasov C.Q., “Tikinti işlərinin əsasları”, Bakı, 2010, 152 s.
2. “İnşaat”, Bakı, 2019, 515 səh.
3. Вишнякова Ю.В., Лесович Е.В., “Техника и технология троительно-монтажных работ”, Новополоцк, 2023, 97 с.
4. https://ru.scribd.com/document/629125652/muh-9

# TÜRK ÇADIR MEMARLIĞININ BIONIK ƏSASLI STRUKTUR XÜSUSIYYƏTLƏRI

**PƏRVINƏ ZEYNALOVA**
Bakı Mühəndislik Universiteti
Memarlıq və inşaat fakultəsi/Memarlıq və şəhərsalma kafedrası
*pzeynalova1@std.beu.edu.az*
XIRDALAN, AZƏRBAYCAN

**XÜLASƏ**

Türk çadır memarlığı əsrlər boyu davam edən, bölgənin mədəni, sosial və ekoloji dinamikasını əks etdirən zəngin bir tarixə malikdir. Bu mənada çadırlar erkən türk tayfalarının köçəri adət-ənənələrindən tutmuş, Osmanlı İmperiyasının mürəkkəb dizaynlarına qədər zamanla əhəmiyyətli inkişaf yolu keçmişdir. Memarlığın bir növ təməli olan türk çadırları eyni zamanda insanların təbiətdə var olan canlı elementlərindən faydalanarak həm də bionik yaşamın başlanğıcı olaraq özünü göstərməkdədir. Tarixə baxdığımızda memarlığın ən çox sintezdə olduğu yerin təbiət olduğu görülür. Buna ən yaxşı və bariz nümunə isə qədim çadırlardır. Tarixdə türk dili xalqlar köçəri həyat tərzi keçirdikləri üçün sanki köçəri quşları özlərinə nümunə almışlar düşüncəsindəyəm. Bu səbəbdən yaşadıqları çadırların formasını da onların yuvalarından ilhamlanaraq yaratmağa çalışmışlar. Bu halda isə çadırın günümüzə qədər gəlib çatmış və müasir formaları yaranmışdır. Belə ki, dünyanın bir çox yerində rahat qurulub - sokülə bilən qurğular və formalardan istifadə edilir. Bu formaların ilk tarixi nümunəsi çadırlardır. O dönəmlərdə insanlar köçəri həyat yaşadıqları üçün yerləşdikləri əraziyə və təbiətə ziyan vurmadan və qalıq buraxmadan davam etmək üçün çadırın strukdurunun ən yaxşı halını yaratmağa çalışmışlar. Bu reallıqlarla tanış olduqda qədim türk xalqlarının günümüzdə də gündəmdə olan mövzulara artıq yetərincə hakim olduqlarını görmək mümkündür. Memarlıqda əsas iki faktor rol oynayır: insan və təbiət. Bu əsas iki faktor nəzərə alınaraq memarlıq layihələr həyata keçirilir. Neçə əsrlərdir ki türk xalqları bu iki faktoru bilib, anlayıb, onlara görə ən yaxşı və uyğun strukturu yaradırlar. Bu da türklərin ön görülü və elmə hakim bir xalq olduqlarının göstəricisidir. İnsanların qədim zamanlardan təbiət elimləri ilə birlikdə memari biliklərə də sahib olduqlarını göstərir.

**AÇAR SÖZLƏR: Çadır ,Memarlıq,Bionika**

**ABSTRACT**

Turk tent architecture has a rich history that has continued for centuries, reflecting the cultural, social, and ecological dynamics of the region. In this regard, tents have evolved from the early nomadic traditions of Turkic tribes to the intricate designs of the Ottoman Empire, traversing a significant developmental path over time. Turkish tents, which form a kind of foundation for architecture, also demonstrate themselves as the beginning of bionic living by utilizing elements existing in nature. When we look at history, it is evident that nature is where architecture is most synthesized. The best and most obvious example of this is ancient tents. Throughout history, I am inclined to think that peoples speaking the Turkish language have perhaps taken themselves as examples from nomadic birds due to their nomadic way of life. Therefore, they have tried to create the forms of the tents they lived in by drawing inspiration from their nests. In this case, tents have evolved to the present day and modern forms have been created. Comfortable and easily assembled structures and forms are used in many parts of the world. The first historical examples of these forms are tents. In those times, people, living a nomadic life, tried to create the best structure of the tent to continue without causing damage to the land and nature and leaving no trace behind. When we encounter these realities, it is possible to see that ancient Turkish peoples are already well-versed in topics that are still relevant today. Two main factors play a role in architecture: human and nature. Taking these two main factors into account, architectural projects are implemented. For centuries, Turkish peoples have known and understood these two factors and have created the most suitable and appropriate structures for them. This is an indicator that Turks are a far-sighted and knowledgeable people. It shows that people have possessed architectural knowledge along with natural skills since ancient times.

**KEYWORDS: Tent, Architecture, Bionics**

## GIRIŞ

Türk çadır memarlığı əsrlər boyu davam edən və bölgənin mədəni, sosial, ekoloji dinamikasını əks etdirən zəngin bir tarixə malikdir. Çadır sözü Daşınan Sığınacaq, Çerge, Oba, Otağ, Keçə, Dəri, Saç Toxuculuğu, Sıx toxunmuş Qalın Parça və ya Plastik Materiallardan Hazırlanmış və Dirəklərlə bərkidilmiş Kölgə kimi istifadə olunan tente və ya çətir olaraq tanımlamaq olar. Çadırlar Erkən türk tayfalarının köçəri adət-ənənələrindən tutmuş, Osmanlı İmperiyasının mürəkkəb dizaynlarına qədər zamanla əhəmiyyətli dərəcədə təkamül keçirmişdir. Yurtalar qədim memarlıq nümunələridir. Yurtaların istifadə tarixinə nəzər yetirsək, əsrlər boyu çadır mədəniyyətlərini qoruyub saxlamış, eyni zamanda daha əlverişli dizayn və forma inkişaf etdirməyi bacarmışlar. Qədim türk tayfalarının öz mədəniyyətlərinə, insanlarına, yaşadıqları regiona məxsus forma və quruluşları vardır. Hər bir türk tayfası özlərinə və köç etdikləri regiona uyğun olaraq fərqli çadır strukturlardan və materiallardan istifadə etmişlərdir. Çadırlar köç həyatının vaz keçilməzi olmuşdur. Aşağıda bir neçə xalqın çadır nümunələrini yer alır. (şəkil 1-4).



Şəkil 1. Orta asiyada monqolların və türklərin istifadə etdiyi çadır

Ds sd sd sd sd sd sd s d sd sd sd sd sd sd sd sd sd sds sdf sdf sdff sdff sdf sddf sdff sddc sdff fff ssd sxx sdf



Şəkil 2. Hun çadırı

Ds sd sd sd sd sd sd s d sd sd sd sd sd sd sd sd sd sds sdf sdf sdff sdff sdf sddf sdff sddc sdff fff ssd sxx sdf



Ds sd sd sd sd sd sd Şəkil 3. Qazax xalqlarının çadırları s d sd sd sd sd
sd sd sd sd sd sds sdf sdf sdff sdff sdf sddf sdff sddc sdff fff ssd sxx sdf

Ds sd sd sd sd sd sd s d sd sd sd sd sd sd sd sd sd sds sdf sdf sdff sdff sdf sddf sdff sddc sdff fff ssd sxx sdf



Şəkil 4. Osmanlı savaş çadırı

Türk yurdunun təməli onun taxta çərçivəsi idi, adətən söyüd, ağcaqayın və ya qovaq kimi ağaclardan alınan çevik taxta dirəklərdən düzəldilib. Bu dirəklər yurdun qəfəs divarlarını təşkil edərək dairəvi və ya silindrik forma yaradırdı. Dirəklərin sayı və düzülüşü yurdun ölçüsündən və dizaynından asılı olaraq müxtəlif olub, daha uzun dirəklər əsas çərçivəni təşkil edir, daha qısa dirəklər isə

möhkəmləndirmə və dayaq üçün istifadə olunurdu. Taxta materialından qurulmuş olan bu strukturun bir çox yararları və faydaları vardır. Dairəvi formanın əsas istifadə səbəbi küləkdə maksimum qorunmaq üçündür. Romb formasında olan struktur köç zamanı daha rahat yığma və yeni ərazidə daha rahat qurmaq səbəbi ilə istifadə edilmişdir. Türk xalqlarının daim özlərinə məxsus formaları, naxışları olmuşdur. Yurtada funksuonal strategiya daşıyan strukturu eynu zamanda interierdə fərqli dizayn olaraq iftifadə etmişlərdir. Buda türk xalqlarının daim yaradıcı bir xalq olduğunu göstərir. (Şəkil5).



Şəkil 5. Yurtanın daşıyıcı elementlərinin 3D görünüşü

Yurd evinin damı mərkəzi nöqtədən xaricə yayılan bir sıra taxta dirəklərdən və ya tirlərdən istifadə edilməklə tikilmişdir. Bu çarxlar "tunduk" və ya "şangrak" kimi tanınan taxta üzükdən və ya çarxdan ibarət olan yurdun dairəvi tacını dəstəkləyirdi. Tunduk, evin içərisində hava axını və temperaturu tənzimləyərkən mərkəzi ocaqdan tüstünün çıxmasına imkan verən səma işığı və havalandırma sistemi rolunu oynayırdı. Qədim türk xalqları üçün yurtanın üst hissəsi, yəni damı göy üzün və ucalığı təmsil edirdi. Bu türklərin yüklədiyi məcazi bir mənadır. Yurtanın bir elementi olan tunduk eyni zamanda fəsilləri və zamanı bilmək üçün əsas element idi. Tundukdan otağa süzülən günəş şüaları günün hansı yarısında olmuğunu bildirirmiş. Eyni zaman günəş şuaları hər fəsildə fərqli bucaq altında otağa daxil olur. Məsələn: Yay, yaz fəslində otağın döşəməsinə daha yaxın. Qış və payız fəslində döşəmədən daha uzaq və otağın divarları ilə günəş şuaları kəsişir. Yurtanın damı daha çox təsir altında qaldığı üçün dam strukturu elementlərdən əlavə qorunma təmin etmək üçün keçə , kətan və ya heyvan dərisi təbəqələri ilə örtülmüşdür. (şəkil6)




Şəkil 6. Yurtanın sxematik hissələrinin adlandırılması.[1]

Taxta karkas yığıldıqdan sonra növbəti addım qoyun yunundan və keçi yunundan hazırlanmış keçə qatları ilə örtmək idi. Keçi yunundan daha çox istifadə edilmişdir. Daha üstün istifadə səbəbi isə, keçi yunu daha qıvrım və sərt olur. Bu səbəblə parça, xalça toxumaq daha çətin olduğu üçün əsas istifadə yeri keçələr olmuşdur. Digər əsas səbəbi keçi yununa həşəratlar yaxınlaşmırlar və otağdan

[1] Deveci 2017

zəhərli həşəratları uzaq tutur. Keçə möhkəm şəkildə dartılmış və şəbəkə divarlarına örtülmüş , izolyasiya və elementlərdən qorunmaq üçün üst-üstə döşənirdi. Keçə təbəqələri iplər və ya qayışlardan istifadə edərək, taxta çərçivənin ətrafında möhkəm oturuşunu təmin edərək yerində sabitlənmişdir. Bəzi hallarda əlavə izolyasiya və davamlılıq üçün heyvan dəriləri və ya toxuculuqdan əlavə təbəqələr də əlavə edilmişdir . (Deveci 2017). (şəkil7).



Şəkil 7. Taxta strukturun üzərində olan keçə qatları

Yurd evinin əsas strukturu tamamlandıqdan sonra funksional yaşayış yerləri yaratmaq üçün daxili əşyalar quraşdırılmışdır. Buraya yemək bişirmək və qızdırmaq üçün mərkəzi ocaq və ya soba tikmək , yatmaq və oturmaq üçün perimetr boyu alçaq taxta platformaların və ya hündür çarpayıların tikilməsi , ev əşyaları və ləvazimatların saxlanması üçün yerlərin təşkili daxildir . Köçəri ailələr çox vaxt yurdlarının içini rəngarəng tekstil, xalça və qobelenlərlə bəzəyərək yaşayış sahəsinə hərarət və xarakter qatırdılar. Türklərin hər zaman özlərinə məxsus naxışları,simvolları, dizayn quruluşları vardır. Öz tərzlərini əsasən xalça toxuculuğunda göstərmişlər. Bu xalçalar əsasən otağları bəzədikləri üçün fərqli aura və kombasisiya yaradır. (şəkil 9)




Şəkil 8. Çadırın yer bölgüsü.

Altay yurdunun iç yerləşimi: A- Ailə yeri, B- Yataq yeri, C- Qadınlar tərəf, D- Kasıblar və xidmətçilərin yeri E- Kişilərin yeri EP- Şərəf yeri F- Meşin çuvalları , FŞ- Ocağ G- Putlar GB- kişi qonqlar Hh- ev sahibi Hf- evin xanımı JV- Heyvanlar K- uşaqlar KG- mətbəx tərəf T- Qapı V- Qohumlar WB- Qadın qonaqlar

Çadır qapısından girdikdə sol tərəf kişilərə, sağ tərəf qadınlara ayrılmışdır. Kişilər tərəfdən tam qapının qarşısında "Tör" adı verilmişdir. Bura ən hörmətli ( yaşlı, sözü keçən, hörmət edilən) kişi qonaqlar üçün hazırlanır. "Baş yer" və ya "Şərəf yeri" adı verilən bu hissə qarşılanacaq qonaqların şanına yaraşan şəkildə "qoşma" adı verilən naxışlı keçə palazlar və ya "ocağçı" adı verilən özəl xalçalarla örtülmüşdür. Sıradan kişi qonaqların yeri isə qapının sol tərəfində yer almaqdadır. Ailə yaxınlarının, kadın qonaqların yeri ayrı nəzərdə tutulmuşdur. Sağ arxa tərəfdə ev sahibi, ev xanımı, uşaqlar və qohumlar olmaqla ailəyə aiddir. Sağ ön hissə qadın qonaqlara ayrılmışdır. Kasıbların və xidmətçilərin yeri qapının yanıdır. Çadırın iç dzaynı iyerarxik forma və dini inanclar əsasında formalaşmışdır. ( şəkil8)[2]



Şəkil 9. 3D Yurtanın interiyer görünüşü (yataq hissəsindən baxış)

Bütövlükdə, köçəri qədim türk xalqlarının yaşadığı yurdlar təkcə praktiki sığınacaq deyil, həm də mədəni kimliyin, ictimai birliyin və çətinliklər qarşısında dayanıqlılığın simvolu idi. Bu ənənəvi yaşayış məskənləri müasir türk toplumları üçün mədəni əhəmiyyətə malik olmaqda davam edir və onların zəngin köçəri irsini xatırladır. Türk yurdları Orta Asiya çöllərinin sərt ekoloji şəraitinə , o cümlədən ekstremal temperaturlara, güclü küləklərə və güclü qar yağışına tab gətirmək üçün nəzərdə tutulmuşdur. Möhkəm taxta çərçivə və qalın keçə örtük izolyasiya və elementlərdən qorunma təmin etdi, yurdun dairəvi forması isə küləyin müqavimətini minimuma endirdi və təbii havalandırmanı asanlaşdırdı. Bu uyğunlaşma və dözümlülük yurdları köçəri həyat üçün yaxşı uyğunlaşdırdı və türk xalqlarına regionda müxtəlif və çətin mühitlərdə inkişaf etməyə imkan verdi.

**NƏTICƏ**

"Bionik memarlıq" sözü yunanca "bios" (həyat) sözündən və ingiliscə "texnika" (öyrənmək) sözündən əmələ gəlib. Termin ilkin olaraq "texnologiyaların həyat formalarına köçürülməsi" elmi tendensiyasını təsvir etmək üçün istifadə edilmişdir. "Bionik" termini ilk dəfə 1958-ci ildə ABŞ ordusunun polkovniki Cek E. tərəfindən istifadə edilmişdir. Bonik memarlıq, Təbiətdəki orqanizmlərin mexanizm və funksiyalarını tədqiq edərək təbii formaları müxtəlif miqyasda memarlığa çevirmək üçün bir yanaşma olan bionik memarlıq (bionic architecture) fənlərarası bir sahədir. Bionik memarlıq təbiətdə mövcud olan və həmişə təbiətin dövriyyəsinə uyğunlaşa bilən,təbiətə zərər vermədən təbiətdə yaşaya bilən canlıların və canlı orqanizmlərin araşdırılaraq və onlardan ilham alaraq memarlığa köçürülməsidir. Binaların ətraf mühitlə qarşılıqlı əlaqədə olduğu ilk yer binanın daxili və xarici mühiti arasında interfeys yaradan binanın qabığıdır, səthidir. Bionika yeni bir bilim olmasına baxmayaraq türklər artıq bu şərtlərə əməl edərək yaşam sürdürmüşlər. Tarixə baxdığımızda memarlığın ən çox sintezdə olduğu yerin təbiət olduğu görülür. Buna ən yaxşı və bariz nümunə isə qədim çadırlardır. Tarixdə türk dili xalqlar köçəri həyat tərzi keçirdikləri üçün sanki köçəri quşları özlərinə nümunə almışlar düşüncəsindəyəm. Bu səbəbdən yaşadıqları çadırların formasını da onların yuvalarından ilhamlanaraq yaratmağa çalışmışlar. (şəkil 10, 11)

[2] Külcü 2018 səh 100-102




Şəkil 10. Şəkil 11.

Bionikanın əsas prinsipləri təbiətdən ilhamlanaraq forma yaratmaq və ya baş verən mexaniki sistemi memarlıq layihələrinə tətbiq etməkdir. Mən belə düşünürəm ki, türklər tək forma yaratmaq deyil, eyni zamanda mexaniki sistem olaraqda təbiətdən ilhamlanmışlar. Bu nəticəyə gəlməyimin əsas səbəbi isə quş fəsiləsinin bir çox növləri, özlərinə uyğun və əlverişli olan iqlimlərə köç edirlər. Qədin terklərdə iqlim, torpaq məhsuldarlığı, müharibə kimi bir neçə səbəbdən köç etmişlərdir. (Şəkil 12,13)




Şəkil 12 Türklərin köç səhnəsi Şəkil13. Quşların köç səhnəsi

Bu reallıqlarla tanış olduqda qədim türk xalqlarının bu günümüzdə gündəmdə olan mövzulara artıq yetərincə hakim olduqlarını görmək mümkündür. Memarlıqda əsas iki faktor rol oynayır insan və təbiət. Bu əsas iki faktor nəzərə alınaraq memarlıq layihələr həyata keçirilir. Neçə əsrlərdir ki türk xalqları bu iki faktoru bilib anlayıb onlara görə ən yaxşı və uyğun strukturu yaradıqlar. Buda türklərin ön görülü və elmə hakim bir xalq olmaqlarının göstəricisidir. insanlar qədim zamanlardan təbiət elimləri ilə birlikdə memari biliklərədə sahib olduqlarını göstərir.

**ƏDƏBIYY1AT SIYAHISI**

1. Abdurrahman Deveci, Türkmen Kültüründe Çadır, (2017)
2. Recep Külcü, Türk Çadırındaki Büyük Gizem, (2018)

İnternet resurusları:

1. https://www.istockphoto.com/ru/%D1%84%D0%BE%D1%82%D0%BE/%D1%81%D1%82%D0%B0%D1%80%D0%B0%D1%8F-%D1%82%D1%83%D1%80%D0%B5%D1%86%D0%BA%D0%B0%D1%8F-%D0%BF%D0%B0%D0%BB%D0%B0%D1%82%D0%BA%D0%B0-%D1%8E%D1%80%D1%82-gm904077850-249333433
2. https://tarihvearkeoloji.blogspot.com/search?q=yurta
3. https://dergipark.org.tr/tr/download/article-file/618223#:~:text=T%C3%BCrkler%20Anadolu'da%20kara%20%C3%A7ad%C4%B1r,ba%C5%9Fl%C4%B1ca%20%C3%BC%C3%A7%20t%C3%BCr%20%C3%A7ad%C4%B1r%20kullanm%C4%B1%C5%9Flard%C4%B1r
4. https://www.sosyalarastirmalar.com/articles/tent-in-turkmen-culture.pdf
5. https://www.cgtrader.com/3d-models/exterior/house/traditional-turkish-tent ( 3D model)

# SAĞLAMLIQ IMKANLARI MƏHDUD ŞƏXSLƏRLƏ BAĞLI STANDARTLARIN ÖLKƏMIZDƏ TƏDBIQI, MÖVCUD VƏZIYYƏT, PROBLEMLƏR VƏ MÜMKÜN HƏLLI YOLLARI

**LƏMAN ABDULLAZADƏ**
Bakı Mühəndislik Universiteti
Memarlıq və Şəhərsalma kafedrası
*Laabdullazada@beu.edu.az*
BAKI, AZƏRBAYCAN

**XÜLASƏ**

Əlillik (sağlamlıq imkanı məhdud şəxs) - bir çox hallarda fərdin həyat fəaliyyətini çərçivələyən və məhdudlaşdıran psixi-fiziki xəstəlik, bir çox hallarda isə fərdin qabiliyyət, güclü tərəflərindəki məhdudiyyət və çatışmazlıq vəziyyətidir. Əlillik təkcə sağlamlıq problemi deyil. Bu, insanın bədən xüsusiyyətləri ilə, yaşadığı cəmiyyətin xüsusiyyətləri arasında qarşılıqlı əlaqəni əks etdirən mürəkkəb bir hadisədir. Məlumdur ki, sağlamlıq imkanı məhdud şəxslər ictimai həyatda bir çox vasitə və xidmətlərdən istifadə etməkdə maneələrlə üzləşirlər. Sağlamlıq imkanı məhdud şəxslər tam sağlam olan insanlarla eyni ehtiyaclara malik ola biləcəyi nəzərə alınmır və ya çox zaman onlar diqqətdən kənarda qalır. Bu şəxslərin də duyğularının, hisslərinin, xəyallarının olduğu, sağlam insanlar qədər onların da eyni hüquqa sahib olduqları unudulmamalıdır. Yüz illərdir sağlamlıq imkanları məhdud şəxslər bəşəriyyətdə olun və cəmiyyətin bir hissəsidir, lakin biz onları ətrafımızda çox nadir hallarda görə bilirik. Digər inkişaf etmiş ölkələrdə isə onlar sıxılmadan, kompleks etmədən və ən vacibi kimsədən asılı olmadan özləri özlərini rahat bir şəkildə idarə edirlər. Bu məqalədə, sağlamlıq imkanı məhdud şəxslər üçün ölkəmizdə yaradılmış şəraitlər, ictimai və sosial həyatlarında onların qarşılaşdığı problemlər, bu mövzu ilə əlaqədar xarici ölkə təcrübələri və mövcud problemlərin mümkün həlli yolları qeyd olunmuşdur.

**AÇAR SÖZLƏR:** sağlamlıq imkanı məhdud şəxs, əlillik, topluma qazandırma

**ABSTRACT**

Disability (a person with limited health) is a psycho-physical illness that frames and limits the individual's life activities in many cases, and in many cases it is a state of limitation and deficiency in the individual's abilities and strengths. Disability is not only a health problem. This is a complex phenomenon that reflects the interaction between the characteristics of a person's body and the characteristics of the society in which he lives. It is known that people with disabilities face obstacles in using many services in public life. People with disabilities may have the same needs as healthy people, and they are often overlooked or ignored. It should not be forgotten that these people also have emotions, feelings, and dreams, and they have the same rights as normal people. People with disabilities have been a part of humanity for hundreds of years, but we rarely see them around us. In other developed countries, they manage themselves comfortably without being stressed and insecure, and most importantly, without depending on anyone. In this article, the conditions created in our country for people with limited health opportunities, the problems they face in their public and social life, the experiences of other countries related to this topic and possible solutions to existing problems are discussed.

**KEYWORDS:** disabled person, disability, integration into society

## GIRIŞ

Öncəliklə bir həftəmizi və yaxud bir günümüzü nəzərdən keçirək. Bu zaman qismində biz evdə işdə, ictimai nəqliyyatda, yaxud asudə zamanlarımızı dostlarımızla kino, teatr, ticarət mərkəzləri, restoran, parklarda və s. kimi yerlərdə keçiririk. Bütün bunları biz təhlil etdikdə, bu kimi yerlərdə ümumiyyətlə çevrəmizdə haradasa heç bir sağlamlıq imkanı məhdud şəxsləri görə bilmərik,yaxud çox nadir hallarda görə bilirik. Lakin bu onların həyatda heç olmadığı mənasına gəlmir.

Sağlamlıq imkanları məhdud (əlil) şəxs zədə, fiziki və ya psixi pozğunluq səbəbindən müəyyən hərəkətləri, hissləri və ya funksiyaları məhdudlaşmış şəxsdir. Əlillik anadangəlmə ola bilər və ya

qazanılmış xəstəliklər yaxud da qəza nəticəsində yarana bilər.(4) Ümumiyyətlə, sağlamlıq imkanları məhdud şəxslər əsasən üç əsas kateqoriyaya bölünürlər:

1.Fizioloji məhdudiyyətli

Əgər anadangəlmə və ya qazanılmış xəstəlik və ya bədbəxt hadisə nəticəsində orqanizmdə həyati vacib orqanların funksiyasının pozulması nəticəsində yaranırsa, insan fizioloji cəhətdən əlil olur. Hərəkət pozğunluqları, tənəffüs pozğunluqları, orqan çatışmazlığı buna misaldır.

2.Zehni - psixoloji məhdudiyyətli

Anadangəlmə və ya qazanılmış eşitmə və ya görmə qüsuru və ya daha geniş kontekstdə beynin qavradığını düzgün qəbul edə və şərh edə bilmədiyi vəziyyətlər qavrayış qüsurları kimi təsnif edilir. Bunlara öyrənmə pozğunluqları, diqqət çatışmazlığı/çatışmazlıqları, görmə pozğunluqları (korluq), eşitmə pozğunluqları (karlıq), psixiatrik pozğunluqlar (emosional qavrayış pozğunluqları, sosial pozğunluqlar; qavranılanları şərh etmək problemləri, yalançı impulslar və s.) daxildir.

3.Fiziki məhdudiyyətli əlillik

Bu, ümumi olaraq adlandırılan əlillik kateqoriyasıdır ki, burada fiziki hərəkət azadlığı əl-ayaq kimi əzaların itirilməsi və ya bədənin həyat funksiyalarına texniki cəhətdən çox təsir göstərməyən əzaların iflici kimi hallarda məhdudlaşdırılır. Məsələn, yerimə qüsuru, ortopedik əlillik və s.

OECD-Aİ məlumatlarına görə, dünya əhalisinin təxminən 15%-ni əlillər təşkil edir. Yəni dünyada 1 milyard əlil var(1). Ölkəmizdə isə bu rəsmi ədədlərə görə yarım milyon(2), qeyri-rəsmi məlumatlara görə isə daha çoxunu təşkil edir. Bundan başqa hərkəsə məlumdur ki, ölkəmiz illərlə müharibə şəraitində olub, 2020-ci ildə Ali baş komandanımız İlham Əliyevin göstərişi ilə haqq savaşımız başlamış, 30 il düşmən tapdağında işğalda olan torpaqlarımızın nəhayət geri qaytarılması ilə nəticələndirilmişdir. Hər müharibənin sevincli tərəfi olduğu kimi, acı tərəfi də vardır ki, buna misal olaraq Şəhid və Qazilərimizi göstərə bilərik. Müharibədə yaralanan döyüşçülərimizin bir qisminin də sağlamlıq imkanları təəssüflər olsun ki, məhdudlaşmışdır. Dövlət Statistika Komitəsindən əldə etdiyimiz rəsmi məlumatda bildirlib ki, 2023-cü il oktyabrın 1-i vəziyyətinə Azərbaycanda müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin sayı 20102 nəfər olub(3). Təbii ki, dövlətimiz Qazilərimizə və sağlamlığında məhdudiyyət olan şəxslərə lazımı diqqət və qayğını göstərir. Bundan başqa həmin şəxslərin cəmiyyətə qazandırılması prossesi də uğurla davam edir, belə ki, çox sayda sağlamlıq məhdudiyyətli şəxslər müxtəlif sahələrdə işlə təmin olunmuşdur.

Lakin sağlamlıq imkanları məhdud şəxslərin sadəcə görə biləcəkləri işlə təminlə cəmiyyətə qazandırma cəhdləri müəyyən mənada yetərsiz qalır. Belə ki, yuxarıda da qeyd etdiyim kimi asudə zamanlarımızı keçirdiyimiz, istirahətimizi etdiyimiz məkanlarda və ictimai nəqliyyatlarda bu şəxsləri çox nadir görə bilirik. Bunun səbəbi isə onlar üçün asudə zamanları keçirmək üçün yerləşgələrin çox az sayda olması, bir nöqtədən digər bir nöqtəyə getmək imkanları lazımı səviyyədə qurulmaması, hələ də həmin şəxslərin özünü idarəsinin avtomatlaşdırılmış əlil arabasının ölkəmizdə məhdud sayda olması səbəbindən digər bir şəxsdən asılı olmasıdır. Sağlamlıq imkanları məhdud şəxs bu baxımdan sözün həqiqi mənasında həqiqətən məhduddur.

Sağlamlıq imkanları məhdud şəxslərlə bağlı şəhərimizdə olan çatışmamazlıqlar, dünya təxrübəsi və nəticə olaraq mümkün həlli yollarından söz açmaq istəyirəm.

**Piyada yolları.** İlk növbədə parklar, bağçalar və s. yerlərin piyada yollarında olan problemlərə nəzər yetirək. Belə ki, xoşbəxtlikdən bir çox parkların piyada yolunda görmə məhdudiyyətli şəxslər üçün xüsusi zolaqlar ayrılmışdır, lakin bu zolaqlar müxtəlif yerlərdə kəsilir və davamı gəlmir. Yəni ki, indiyə kimi heç zaman o zolaqdan istifadə etdiyini görmədiyimiz görmə məhdudiyyətli şəxs o zolaqdan istifadə etsə belə irəli getdiyi kimi geri qayıtmağa məcbur qalacaqdır.

Bu yolun adı hissediləbilən səth adlanır, görmə məhdudiyyətli şəxslər gəzinti çubuqları ilə o səthin üzərində olan işarələri hiss edərək, yollarına davam edə bilirlər(5). Bu işarələr kiçik dairələr şəklində olduqda – dayan, bir-birinə paralel xətlər şəklində olduqda isə - yola davam et informasiyasını onlara ötürür. Hissediləbilən səth adətən piyada yolları, ticarət mərkəzləri, xəstəxana, bank, metro və bu kimi yerlərdə nəzərdə tutulur.

Eyni zamanda görmə məhdudiyyətli şəxslərdə əl ilə hiss etmə duyğusu daha çox inkişaf etmişdir ki, bunun üçün də xarici ölkələrdə onlar üçün nəzərdə tutulmuş yolların kənarlarında xüsusi qabarıqlı xəritə lövhələr yerləşdirilir ki, həmin şəxslər ora toxunaraq həmin məkan yaxud ərazi haqqında məlumatı əldə edə bilirlər.

**Parklar.** Çox sevindirici haldır ki, Azərbaycanda zamanla sağlamlıq imkanları məhdud şəxslər üçün bir neçə park yaradılmış, uşaqların əyləncəsini təşkil etmək üçün xüsusi oyun qurğuları yerləşdirilmişdir. Bildiyimiz kimi sağlamlıq məhdudiyyətli şəxslər üçün nəzərdə tutulmuş sanitar qovşaqların xüsusi standartları mövcuddur. Misal üçün sanitar qovşağa araba ilə daxil olmaq üçün qapı genişliyi və s. erqonomik tələblər. Ticarət mərkəzlərinin çoxunda bu nəzərə alınsa da bir çox parklarda nəinki məhdudiyyətli şəxslər eləcə də normal şəxslər üçün belə sanitar qovşaqlar nəzərdə tutulmamışdır. Buna misal olaraq İzmir parkını göstərə və bu misalların sayını çoxalda bilərik. Vizual olaraq böyük sahəyə və yaşıl örtüyə malik İzmir parkının planlamasında çox kobud bir səhvə yol verilmişdir. Dünya təcrübəsinə baxdıqda misal kimi Cənubi Koreya Respublikasını göstərə bilərik ki, buranın istənilən şəhər yaxud istənilən parkı olsun hər birininin planlaşdırılmasında mütləq şəkildə sağlam yaxud sağlamlıq imkanları məhud şəxslər üçün ayrı-ayrılıqda sanitar qovşaqlar yerləşdirilmiş, eyni zamanda da yol boyunca heç kəsilmədən hərəkəti davam etdirən görmə məhdudiyyətli şəxslər üçün hissediləbilən səthli yol zolaqları quraşdırılmışdır.

**İctimai nəqliyyat vasitələri – avtobus və metrolar.** İctimai nəqliyyat vasitələri olan metro və avtobuslarda da vəziyyət o qədər də ürəkaçan deyil. Belə ki, avtobusların girişlərində əlil arabalarını avtobusa daxil etmə səddi olmasına baxmayaraq bunu açmaq və arabanı içəri alma işi Bakı kimi tıxaclı yollarda avtobusu idarə edən sürücünün öhdəliyinə düşür. Bu isə əlavə olaraq avtobusun dayanacaqda zaman itirərək daha çox tıxacın yaranmasına gətirib çıxarır. Bunun üçün digər ölkələrdə olduğu kimi dayanacaqda xüsusi işçi heyyətin olması, yaxud sağlamlıq imkanları məhdud şəxslərə necə kömək edib avtobusa almalıyıq deyə insanlarımızı bu işdə daha çox maarifləndirməliyik.

Cənubi Koreya Respublikasının metro sisteminə nəzər yetirsək görə bilərik ki, metronun interyerində qatar xəttinin qarşısını kəsən, xüsusi sədd yerləşdirilib ki, yalnızca qatar gəldikdə qapı hissəsi açılır. Bu isə öz növbəsində uşaqların yaxud hər hansı sağlamlıq imkanı məhdudiyyətli şəxslərin tunelə düşməsinin qarşısını alır. Və sağlamlıq məhdudiyyətli şəxslərin özlərinə heç bir məhdudiyyət tanımamalarının ən başlıca səbəbi onların hər birinin avtomatlaşdırılmış arabalarının var olmasıdır. Biz, bu arabalarda özlərini heç kimdən asılı olmadan rahat hərəkət edə bilən sağlamlıq imkanları məhdud şəxsləri şəhərin həryerində görə bilərik. Arabaların orada rahatlıqla istifadə edilməsinin başlıca səbəbləri aşağıdakılardır:

- arabaların rahatlıqla şarj olması üçün elektrik mərkəzləri (bunlar demək olar ki, hər addımbaşı qarşımıza çıxa bilir)
- yollarda xüsusi bölümlərin sırf onlara ayrılması və arabalarla istənilən ictimai sahəyə rahatlıqla daxil olmaq, çıxmaq (istənilən memari obyektin kürsülük hissəsindən enən pilləkəndən əlavə xüsusi dairəvi panduslar da yer alır ki, araba ilə çıxıb düşmə asanlaşır)
- metrolara lift vasitəsilə daxil olma (ölkənin demək olar ki bütün metrolarında lift quraşdırılmışdır ki, bu liftdən sağlamlıq imkanları məhdud şəxslər, yaşlı insanlar və hamilələr istifadə edə bilərlər)
-liftlərdə araba boyuna uyğun şəkildə düymələrin yerləşməsi (bütün liftlərdə - istər otel, istər ticarət mərkəzləri istərsədə metro liftlərində biz bunu görə bilərik)
- metroların qarşısında yer alan xüsusi işarələr (sağlamlıq imkanları məhdud şəxslər üçün arabaların qatara daxil olma yerləri qarşısında olan xüsusi piktoqramlardır. Hamilələr və yaşlı insanlar üçün olan bölümlərin qatar gəlmədən qarşısında dayanıb insanlar növbəyə düzülür, qatar gəldikdə qapının mərkəzi hissəsindən vaqonda olan şəxslər çıxır, sağ və sol cinahlardan isə növbə ilə qatar gözləyən şəxsləri içəri daxil olur)

Ölkəmizdə isə təəssüflər olsun ki, sağlamlıq imkanları məhdud şəsxlərin arabaları belə olsa onlar heç kimdən asılı olmadan bir nöqtədən digər bir nöqtəyə getmələri asan olmayacaqdır. Belə ki, metro vaqonlarının içərisində göstərilən çarxa əsasən sağlamlıq imkanları məhdud şəxslər əlil arabasından istifadə edərək metro ilə bir nöqtədən digər bir nöqtəyə getmək istəyirlərsə bunun üçün xüsusi portaldan qeydiyyatdan keçmələri lazımdır. Daha sonra həmin şəxsin daşınması üçün bir neçə nəfər səfərbər olacaq, xüsusi qurğular gətiriləcək və müəyyən zaman çərçivəsi içərisində həmin şəxs istədiyi ünvana çatdırılacaqdır. Lakin dövrün sıxlığını nəzərə alsaq yəni günlük olaraq metrodan yarm milyon şəxs istifadə edirsə və ölkəmizdə də yarım milyondan çox sağlamlıq imkanı məhdud şəxs olduğunu nəzərə alaraqdan bunların 500-1000 nəfəri o portaldan istifadə etməsi bunun üçündə yüzlərlə işçinin səfərbər olması, normalda belə sıxlıq və gecikmələr yaşanan metroda daha da problemə gətirib çıxmasına səbəb olacaqdır.

**İstirahət mərkəzləri və otellər.** Sağlamlıq imkanı məhdud şəxslər üçün tətil və istirahətin mənası adi insanlardan çox da fərqlənmir: istirahətə sərf olunan vaxt, gündəlik həyatın stress və təzyiqindən uzaqlaşmaq kimi əsas səbəblərdir. Bundan əlavə, sağlamlıq imkanı məhdud şəxs üçün məzuniyyətə getmək həm də ona daim qayğı göstərən ailəsi üçün də fasilədir. Tətillərini onlara baxan insanlardan uzaqda keçirən sağlamlıq imkanı məhdud şəxs üçün otelin xüsusi olaraq onları qəbul etmək üçün lazımı standartlarının olması böyük əhəmiyyət kəsb edir.

İl boyunca bir və ya bir neçə dəfə istirahət üçün üz tutduğumuz istirahət mərkəzləri və bir çox otellərdə də bu məsələ elə də ürəkaçan deyil. Mərkəzdə yerləşən otellərdən başqa rayonlarda olan istirahət mərkəzlərində sağlamlıq imkanları məhdud şəxslərin istirahətini təşkil etmək üçün heç bir standartlara uyğun bölümlər nəzərdə tutulmamışdır. Xarici ölkələrdə ümumi otaqların minimum bir faizini təşkil edəcək şəkildə sağlamlıq imkanları məhdud şəxslər üçün xüsusi otaqlara yer vermə qanunları vardır ki, bu otaqlarda qapı genişliyindən tutmuş, məkanın materialına kimi bütün standartlara əməl olunmuş şəkildə qurulması yerinə yetirilir. Bu da sağlamlıq imkanları məhdud şəxslərin heç kimdən dəstək almadan özləri özlərini idarə edir, və tətillərini sərbəst bir şəkildə keçirmələri üçün təməl yaradır.

Ümumiyyətlə sadəcə yuxarıda sadalanan bölümlərdə deyil eləcə də bu kimi ictimai təyinatlı binalarda, yaşayış binalarında və s. məkanlarda bu kimi hallara çox tez tez rast gəlinir ki, sağlamlıq imkanı məhdud şəxslərin birisi tərəfindən hərəkət etdirilməsi, bir yerdən başqa bir yerə daşınılması çox çətinliklə baş verir.

**NƏTICƏ**

Təəssüflə qeyd etmək istəyirəm ki, memari obyektlərin layihələndirilmə prossesi zamanı sağlamlıq imkanları məhdud şəxslər üçün düşünülmüş tələb olunan hər hansı bir qanun yoxdur. Memar-dizayner sağlamlıq imkanları məhdud şəxslərin düşünülməsi yönündə əlavələr etdikdə isə çox zaman maliyə problemləri qarşıya çıxdığı üçün bu əlavələr çox zaman ləğv olunma ilə nəticələnir. Sağlamlıq imkanları məhdud şəxslər üçün xüsusi standartlar mövcuddur biz bunu dünya tıcrübəsində çox aydın bir şəkildə görə bilərik. Yenə təəssüf hissi ilə qeyd edirəm ki, bu standartlar təməldə yəni memar-dizaynerlərin oxuduğu dövrlərdə yəni universitetlərdə kurs işi, kurs layihəsi işlənilərkən də tələb olunmur. Hazırda yuxarıda sadalanan problemlərin başlıca səbəbidə həm də bundan qaynaqlanır.

Sürətlə inkişaf edən ölkəmiz üçün bu kimi hallar, problemlər zaman keçdikcə azalmalı, həlli yolları tapılmalıdır. İlk növbədə fərqindəlik yaratmağa məktəblərdən başlanılmalıdır, sağlam uşaqların sağlamlıq imkanları məhdud olan uşaqlara doğru davranış qaydaları daha da mükəmməl şəkildə öyrədilməlidir. Ümumi parklar yaradıla bilər, həm sağlam həm də sağlamlıq imkanı məhdud uşaqlar bir arada zaman keçirməli cəmiyyətdən təcrid olunmamalıdır. Və ümid edirəm ki, sağlamlıq imkanı məhdud şəxslər üçün ölkəmizdə yaradılan parkların sayı ehtiyaca uyğun olaraq çoxaldılacaq, eyni zamanda da ayrı-ayrı parklar şəklində deyil ümumi parkların bir bölümü də sırf sağlamlıq imkanı məhdud şəxslərə ayrılacaqdır.

Ətrafımızda olan tikililər infrastrukturların qurucuları memarlar və dizaynerlərdir, bunun üçün memarlıq və dizayn ixtisaslarında olan layihə fənnlərinin sillabuslarında sağlamlıq imkanları məhdud şəxslər üçün xüsusi mövzulara yer verilməli, kurs işi və ya kurs layihə tapşırıqlarında sağlamlıq imkanları məhdud şəxslərlə bağlı standartları nəzərə almaq və ona uyğun şəkildə layihənin tərtib olunması tapşırılmalıdır.

İctimai nəqliyyat vasitələrində verilən lazımsız reklamlar yerinə sağlamlıq imkanları məhdud şəxslərə davranış qaydaları və onlara necə kömək etmələri barədə maarifləndirmə əsaslı qısa videolar yayımlana bilər.

Unutmayaq ki, heç bir məsələ məhdudiyyət tanımır, məhdudiyyətləri aradan qaldırmaq bizim əlimizdədir. Dünya ölkələrinin bir çoxunda olduğu kimi ölkəmizdə də sağlamlıq imkanları məhdud olan şəxslərin sadəcə bir dəfə gəldiymiz bu dünyada heçkimdən və heçnədən asılı olmadan, özləri-özlərini idarə edərək həyatlarını doya-doya yaşama haqqları var.

**ƏDƏBIYYAT SIYAHISI**

1. https://ey-der.com/ana-sayfa/turkiye-ve-dunyada-engelliler/#:~:text=Dünyada%201%20milyar%20engelli%20birey,en%20büyük%20azınlık”%20olarak%20nitelendiriliyorlar.
2. https://sfera.az/iqtisadiyyat/228203/azerbaycanda-elillerin-sayi-suretle-azalir-sebeb/
3. https://konkret.az/qarabag-qazilerinin-sayi-nece-neferdi-resmi-melumat/
4. https://tr.wikipedia.org/wiki/Engellilik
5. https://www.rednasis.com.tr/gorme-engelli-yurume-yolunun-adi-nedir/
6. Tunç ADANIR, Fatmagül Öge, Mustafa Yılmaz Hançerli, Nadire Ergin (2015). Engelli standartları, 10-15

# GÖZƏLLİK SİMVOLLARI OLAN ORNAMENTLƏRİN ƏCƏMİ NAXÇIVANİ YARADICILIĞINDA ZƏNGİNLİYİ

**Brilyant İman qızı Cəfərli**
AMEA Naxçıvan Bölməsi
İncəsənət, Dil və Ədəbiyyat İnstitutu
brilliant1cefer@hotmail.com
Naxçıvan, Azərbaycan

**Xülasə**

Məqalə Naxçıvan memarlıq məktəbinin banisi, Azərbaycan memarlığının dühası Əcəmi Əbubəkr oğlu Naxçıvaninin inşa etdiyi memarlıq abidələri üzərində həkk olunan ornamentlərdən bəhs etmişdir. Göstərilir ki, dahi memarın əsərlərində ornamentasiya zənginliyi ən üst səviyyədə tətbiq olunmuşdur. Bu əzəmətli tikililərin səthləri üzərində həm həndəsi, həm də nəbati (bitkisəl) naxışlar istifadə olunmuşdur. İstifadə edilən ornamentlər ahəngdar şəkildə birləşərək bu abidələrin koloritini daha da artırmışdır. Əcəmi Naxçıvani əsərlərinə gözəllik bəxş edən ornamentlərin memarlıq formaları ilə birləşməsindən möhtəşəm abidələr yaranmışdır. Naxçıvanda ucaldılan memarlıq abidələrində memarlıqla ornamentasiyanın kontaminasiyası memarın dərin təfəkkürünün məhsuludur. Bu abidələr üzərində qədim Şərq və Qərb memarlığının sintezi özünü bariz şəkildə göstərir. Ensiklopedik biliyə malik Əcəmi Naxçıvani yaratdığı əsərlərdə memarlıq formaları üzərində ornamentləri böyük istedadla tətbiq etmişdir. Dahi memarın inşa etdiyi abidələr üzərində şəbəkə memarlığının ən çətin və mürəkkəb forması olan cəfəri şəbəkələr çox böyük dəqiqliklə işlənmişdir. Bu ornamentlər girih adlanan həndəsi naxışların ahəngdar şəkildə birləşməsindən əmələ gəlmişdir. Girih naxışları çevrə daxilinə və xaricinə çəkilmiş çoxbucaqlılardan yaranan həndəsi naxış növüdür. Cəfəri şəbəkə sisteminin içərisi isə gəclə doldurulmuş və bitki motivli ornamentlərin bir çox növləri işlənmişdir. Nəbati naxışlardan bir çox gül növləri, yarpaqlar, budaqlar, madoksil, islimi naxış növü istifadə olunmuşdur. Ucaldılan bu möhtəşəm abidələr üzərində memarlıqla ornamentasiyanın vəhdəti özünü çox gözəl formada göstərir.

**Açar sözlər:** memarlıq, ornament, abidə

## THE RİCHNESS OF ORNAMENTS WHİCH SYMBOLS OF BEAUTY İN THE CREATİVİTY OF AJAMİ NAKHCHİVANİ

**Absrtact**

The article dealt with the ornaments engraved on the architectural monuments built by Ajami Abubakr oglu Nakhchivani, the founder of the Nakhchivan School of architecture, the genius of Azerbaijani architecture. It was shown that the richness of ornamentation was applied in the works of the Great Architect at the highest level. Both geometric and botanical patterns were used on the surfaces of these majestic structures. The ornaments used harmoniously combined and increased the

color of these monuments. Magnificent monuments were created from the combination of ornaments and architectural forms that gave beauty to the works of Ajami Nakhchivani. The contamination of architecture and ornamentation in the architectural monuments erected in Nakhchivan is a product of the deep thinking of the architect. The synthesis of ancient Eastern and Western architecture is clearly manifested on these monuments. Ajami Nakhchivani, who has encyclopedic knowledge, applied ornaments on architectural forms with great talent in his works. Parsley networks, the most difficult and complex form of network architecture, were worked on with great precision on the monuments built by the genius architect. These ornaments are formed by a harmonious combination of geometric patterns called girih. Inset patterns are a type of geometric pattern created from polygons drawn inside and outside a circle. The interior of the parsley grid system is filled with late and many types of ornaments with plant motifs are elaborated. Many types of flowers, leaves, branches, madoxil, islimi patterns were used from the botanical patterns. The unity of architecture and ornamentation shows itself in a very beautiful way on these magnificent monuments.

**Key words:** architecture, ornament, monument

**Giriş**

Şərqin əfsanəsi sayılan Naxçıvan əsrlər boyu dahi şəxsiyyətlər yetirmişdir. Hər bir sahədə olduğu kimi memarlıq sahəsində də geniş təfəkkürü, dərin dünyagörüşü ilə seçilən memarlar böyük əsərlər yaratmış və gələcək nəsillərə memarlıq irsimizi yadigar qoymuşlar. Dünyanın naxışı, kainatın ornamenti adlandırılan Naxçıvanın adından da görüldüyü kimi bu qədim diyar üzərində dərin mənaları ifadə edən ornamentlərlə zəngin memarlıq abidələrinin mövcudluğu ilə seçilir. Bu abidələr dünyaya səs salmış Azərbaycan memarlıq tarixinin qədimliyini sübut edən daş salnaməmizdir. Bu mühüm meyarları nəzərə alaraq Azərbaycan memarlığının intibah (oyanış) dövrünün dahi memarı Əcəmi Əbubəkr oğlu Naxçıvaninin yaradıcılığını xüsusi qeyd etmək lazımdır. Naxçıvan memarlıq məktəbinin banisi, Azərbaycan memarlığının dühası, XII əsrdə yaşamış Əcəmi Əbubəkr oğlu Naxçıvani zəmanəsinə görə öz dərin təfəkkürü ilə mənimsədiyi bir çox elmləri birləşdirərək möhtəşəm əsərlər yaratmış və Azərbaycan memarlığına böyük töhfə vermişdir. Əcəmi Naxçıvaninin hələ uşaq yaşlarından üzə çıxan fitri istedadı və memarlıq elminə olan marağı onu cavan yaşlarında memarlıq təhsili almağa sövq etmişdir. Memarı dahi edən də elə onun riyaziyyat, cəbr, həndəsə, astronomiya, təsviri-incəsənət, fizika, kimya, estetika, təbiət, stilistika, mifologiya kimi bir çox elmlərə yiyənlənməsi və öyrəndiyi elmlərin dərinliyinə getməsi olmuşdur. Ensiklopedik biliyə malik Əcəmi Naxçıvaninin yaradıcılığında bu elm sahələri bütöv bir şəkildə təzahür etmiş və bu da orta əsrdə şərq renessansında (intibahında) Azərbaycan memarlığın oyanışı, yüksəlişi, çiçəklənməsi ilə nəticələnmişdir. XII əsr Azərbaycan memarlığının yüksəlməsi dövrü kimi tanınır. Azərbaycan Atabəylər dövlətinin qüdrətli hökmdarı, ulu atabəy Şəmsəddin Eldənizin hakimiyyəti dövründən başlayaraq Naxçıvanda məqbərələr, saraylar, məscidlər, müdafiə tikililəri inşa edilməyə başladı. Öz imzasını qoyduğu möhtəşəm əsərlərlə yalnız Şərqdə deyil, Qərb dünyasında da tanınan Əcəmi Naxçıvani Azərbaycan Atabəylər dövlətinin ərazisi olan Naxçıvanda arxitektura sənətini ən yüksək səviyyədə inkişaf etdirmişdir. Əcəmi Naxçıvani qazandığı biliyi yaratdığı əsərlərdə böyük məharətlə tətbiq etmiş və əzəməti ilə dünyaya səs salan, gözəlliyi ilə gözləri qamaşdıran möhtəşəm memarlıq abidələri ucaltmışdır. Azərbaycan memarlığında bir çox ilklərə imza atan Əcəmi Naxçıvani memarlıq sahəsində özünün yeni üslubunu yaratmışdır. İnşa etdiyi memarlıq abidələrində ənənə və novatorluğun birgə kontaminasiyasını əks etdirməsi memarın özünəməxsus üslubunun bariz nümunəsidir. Əcəmi Naxçıvani antik dövr memarlığını mükəmməl şəkildə öyrənmiş və yaratdığı abidələr üzərində tətbiq etmişdir. O Misir, Mesopotamiya, Yunan, Roma memarlığından bəhrələndiyi memarlıq formalarını və ornamentləri öz əsərlərində istifadə etmişdir. Əcəmi Naxçıvani əsərlərində Şərq və Qərb memarlığının sintezini aydın şəkildə görmək mümkündür. Memarın yaratdığı əsərlər üzərində demək olar ki, bütün dünya elmləri kompleks halında özünü ehtiva edir. Əcəmi dühasının fikir dünyası çox zəngin olmuşdur. Əcəmi Naxçıvani yaratdığı memarlıq abidələrində tektonikliyin, yəni həmin abidələrin hansı üsulla qurulmasının, hansı üsulla hissə-hissə yığılmasının, deformasiyaya qarşı hansı tədbirlər görülməsinin həllini tapan dahi memar olmuşdur. Buna görə də o "şeyx-ül mühəndis", yəni mühəndislərin başçısı titulunu qazanmışdır.

Fikrimizcə, memarlıq abidələri üzərində görünən və ona gözəllik verən hər bir detal, element, forma onu bəzəyi, dekorudur. Bu abidələrin müəyyən hissələrini gözəlləşdirmək üçün istifadə edilən

bəzəklər isə ornamentlər adlanır. Əcəmi Naxçıvani yaradıcılığında memarlıq abidələri üzərində işlənmiş ornamentlər böyük ustalıqla tətbiq edilmiş, memarın yaratdığı abidələrə xüsusi, əsrarəngiz gözəllik vermişdir. Onun yaratdığı əsərlər üzərindəki hər bir ornamentin qədim mifologiyamıza dayanan dərin simvolik mənası vardır. Əcəmi memarlıq abidələri üzərində ən qədim türk simvollarından istifadə etmişdir. Memar inşa etdiyi tikililəri zərif, bir o qədər də zəngin mifik naxışlarla bəzənmiş kiçik ölçülü bişmiş kərpiclərlə üzləmişdir. Böyük ustad ucaldılan hər bir memarlıq abidəsi üzərində həndəsi və nəbati (bitki) naxışları birləşdirərək ortaya nəfis bir mənzərə çıxarmışdır. Memarlıq ilə ornamentasiyanın vəhdətini daşıdığı bu abidələrdə Əcəmi Naxçıvanı biliyinin dərinliyi bütövlükdə görülməkdədir. Əcəmi Naxçıvani əsərlərində böyük səbr tələb edən mürəkkəb həndəsi ornamentlərdən yaranan şəbəkə sisteminin növü olan cəfəri şəbəkə sistemini dəqiq hesablamalarla tətbiq etmişdir (Salamzadə, 2009). Cəfəri şəbəkələr müstəvi üzərində müxtəlif üsullarla deşiklər açılmaqla yaranırlar və memarlıq abidələri üzərində daşı oyma üsulu ilə tətbiq edilirlər. İstifadə olunan hər bir ornament növü öz incəliyi və dekorativliyi ilə seçilir (11).

Memarlığın böyük ustadı Əcəmi Əbubəkr oğlu Naxçıvaninin inşa etdiyi memarlıq abidələrindən yalnız ikisi dövrümüzə qədər gəlib çatmışdır. Bunlardan biri memarın ilk əsəri sayılan Yusif Küseyr oğlu (Şeyx Yusif ibn Qasirin, ibn Qüseyyir) türbəsidir. Hal-hazırda istifadə etdiyimiz təqvimlə, yəni miladi təqvimlə 1162-ci ildə (hicri təqvimlə 557-ci il) bişmiş kərpicdən inşa olunmuş türbə Azərbaycan Atabəylər dövlətinin hakimiyyəti illərində Naxçıvan şəhərinin rəisi (rəhbəri) olmuş, şeyxlər başçısı Yusif Küseyr oğlunun qəbri üzərində inşa olunmuşdur. XII əsrdə belə bir türbənin tikintisi Azərbaycan memarlığında yeni bir mərhələdir. Kərpic hörgüsü tətbiq edilən türbə planda səkkizbucaqlı biçimdə görünür və iki hissədən ibarətdir: yeraltı sərdabə və yerüstü qüllə (gövdə). Yeraltı sərdabənin hündürlüyü 3 metr, yerüstü qüllənin hündürlüyü isə kürsülükdən başlayaraq 7,2 metrdir. Türbənin gövdə hissəsi səkkiz üzü olan piramidal şəkilli örtük konstruksiyasına malikdir. Yerüstü qüllənin səkkiz səthi də daxildən və xaricdən dayaz sivri tağçalar içərisinə salınmışdır. Eksteryerdə səthi üzlərdə düzbucaqlı şəklində tağçalar işlənmişdir. Xarici səthlərdə tağçaların içində daşı oyma üsulu ilə əmələ gələn cəfəri şəbəkə kompozisiyası öz əksini tapmışdır. Tətbiq olunan bu şəbəkələr həndəsi ornamentlərin birləşməsindən yaranan girih (düyün) naxışlarının ahəngdar şəkildə kontaminasiyasından əmələ gəlmişdir. Abidənin səthləri üzərində tətbiq edilmiş cəfəri şəbəkə sistemi ilə qurulmuş həndəsi naxışlarının quruluşu kvadrat, düzgün altıbucaqlı və onların birgə kontaminasiyasından yaranan mütənasiblik sisteminə əsaslanır. Əcəmi Naxçıvani abidə üzərində sadə həndəsi ornamentlər olan nöqtə və düz xətlərdən başlayaraq girih adlanan ən mürəkkəb ornament formalarına qədər bir çox həndəsi formalardan böyük bir məharətlə istifadə etmişdir. Yusif Küseyr oğlu türbəsinin səthlərindəki həndəsi fiqurlardan altıbucaqlılar və səkkizbucaqlılar aparıcı rol oynamışdır. Bu həndəsi ornamentlərin birləşməsindən altıguşəli ulduzlar, səkkizguşəli ulduzlar, romblar, beşbucaqlılar, üçbucaqlılar əmələ gəlmişdir (Əliyev, 2007). Yaranan ulduzlar astral ornamentlər siyahısına daxildir. Və nəticədə abidənin səkkiz üzündə də həndəsi ornamentlər ahəngdar şəkildə birləşdirilmiş, şəbəkə sistemi böyük ustalıqla qurulmuşdur. Şəbəkə sistemi ilə qurulan ornamentlərin içərisi nəbati naxışlarla bəzədilmişdir. Bu ornamentlər daşı oyma üsulu ilə icra olunan relyefli (qabarıq) naxışlardır. Beləliklə abidənin səthləri üzərində ornamentlərin müxtəlif növlərinin kompozisiyası yaranmışdır. Əcəmi Naxçıvaninin dərin təfəkküründün izlərini daşıyan türbənin hər səthi digərlərindən fərqlənir. İşlənən ornamentlər əvvəlcə kənarda kiçik kərpiclərdən quraşdırılmış, sonra isə gəc məhlulu ilə tavalar şəklində birləşdirilərək səthlərin üzərində möhkəmləndirilmişdir. Çatmatağ şəkilli giriş portalı (baştağı) П formasında haşiyə ilə çərçivələnmişdir. Bu haşiyə svastika (çərxi fələk) elementindən qurulmuş kvadrat formalı meandr ornamentidir.




**Yusif Küseyr oğlu türbəsinin cəfəri şəbəkə olan üzlərindən biri**

**Yusif Küseyr oğlu türbəsinin giriş portalını haşiyələyən svastika elementindən şəbəkə**

Yusif Küseyr oğlu türbəsinin səthləri üzərində işlənmiş epiqrafik ornamentlər kufi xətti ilə həkk olunmuşdur. Kufi xətti ərəb əlifbasının kvadrat formalı xətt növüdür. Bu epiqrafik ornamentlərdə türbənin kimin şərəfinə və neçənci ildə tikilməsi, "Quran"dan ayələr və surələr, abidənin kim tərəfindən tikilməsi (memarın adı) qeyd olunmuşdur. İstifadə olunmuş bu ornamentlər giriş portalının üzərində düzbucaqlı formasında olan filenkada epiqrafik yazı şəklində, abidənin yerüstü qüllə hissəsi ilə örtük konstruksiyası olan günbəz (qübbə) hissəsinin arasındakı (gövdə ilə örtük hissəsi arasındakı keçid) friz adlanan yuxarı hissədə epiqrafik yazı kimi və türbənin giriş qapısı olan üzündən başlayaraq saat əqrəbi istiqamətində 2-ci üzündəki (giriş qapısından sol tərəfdəki) sivri tağçanın içərisində yuxarı hissədə epiqrafik yazı lövhəsi şəklində verilmişdir. Yusif Küseyr oğlu türbəsində şirli kərpiclər işlənməsə də, ornamentlərin bir çox növünün müxtəlif ölçülü kərpiclərlə işlənməsi və kərpiclərin fərqli formada düzülüşü abidənin koloritini (rənglərin harmonik birləşməsini) artırır.




**Giriş portalının üzərindəki düzbucaqlı filenka yazı lövhəsi**

**Abidənin frizi və 2-ci üzdəki epiqrafik**

Əcəmi Əbubəkr oğlu Naxçıvaninin zəmanəmizə qədər gəlib çatmış ikinci böyük əsəri Şərqdə ilk dəfə qadına ithafən inşa edilən Möminə Xatun məqbərəsidir. Azərbaycan Atabəylər dövlətinin başçısı Şəmsəddin Eldənizin həyat yoldaşı Möminə Xatun miladi təqvimlə 1175-ci ildə (hicri təqvimlə 571-ci il) vəfat etdikdən sonra Şəmsəddin Eldəniz onun qəbri üzərində məqbərə ucaldılmasını arzulamış, lakin xanımının ölümündən bir ay sonra atabəy də vəfat etmişdir. 1175-ci ildə inşası başlanan məqbərənin tamamlanma prosesi miladi təqvimlə 1186-cı ildə (hicri təqvimlə 582-ci il) Şəmsəddin Eldənizlə Möminə Xatunun oğlu Məhəmməd Cahan Pəhləvan tərəfindən yerinə yetirilmişdir. Şərqdə ilk dəfə Azərbaycan qadınının yüksək statusunu təsdiq edən məqbərənin plan-məkan quruluşu onluq prinsipi üzrə işlənmişdir. Memar Əcəmi Naxçıvani bişmiş kərpicdən inşa olunan məqbərənin

dayanıqlılığını artırmaq üçün hörgüdə palçığın içərisinə lazımi tikinti materialları ilə yanaşı yumurta ağı da daxil etmişdir. Əcəmi Naxçıvaninin inşa etdiyi bu möhtəşəm abidə əzəməti ilə yanaşı vizual görüntüsü ilə də diqqətləri öz üzərinə çəkir. Bunun səbəbi memar Əcəmi Naxçıvaninin məqbərə üzərində böyük məharət və dəqiqliklə işlədiyi relyefli ornamentlərin abidəyə qatdığı möhtəşəm görüntüdür. Memarlıq abidələrinin gözəllik simvolları olan bu ornamentlər məqbərə üzərində Möminə Xatun kimi bir qadının gözəlliyini, zərifliyini təcəssüm etdirir. Məqbərənin eksteryerinin bəzədilməsində adi və şirli (firuzeyi kaşılı) bişmiş kərpicdən istifadə olunmuşdur. Yarusu yeraltı sərdabə və yerüstü qüllədən ibarət məqbərənin səthləri üzərində Əcəmi Naxçıvani həm həndəsi, həm də nəbati ornamentlərin müxtəlif növlərinin istifadəsindən ortaya möhtəşəm bir əsər çıxarmışdır. Sərdabə hissənin interyerindəki divarların hörgü sistemində cinağı naxış növündən (yolka naxışından) istifadə edilmişdir. Yəni üzlük kərpiclər ardıcıl olaraq üfüqi və şaquli hörülmüşdür. Abidənin sərdabə hissəsinin mərkəzindəki qalın onüzlü dayağın üzərində həm cinağı ornament, həm də bitkisəl (nəbati) ornamentlər həkk olunmuşdur. Dayağın üzləri yan tərəflərə sivri tağbəndlərlə birləşmiş, bu da dayağa göbələkvari görüntü vermişdir. Dayağın tinlərindən qarşı künclərə kərpic qabırğalar (nervürlər) verilmişdir. Bu çıxıntılar dayağın gözəlliyini və işlənmə effektini artırır. Nervürlər sərdabə hissədə ulduzvari karkas görüntüsü əmələ gətirmişdir. Qabırğaların karkaslarının araları saya naxışlı, yəni birrəngli kərpic hörgüsü ilə üzlənmişdir. Bu da dayağa tektonik gözəllik vermişdir. Dayağın üzərində nəbati ornamentlərdən dördləçəkli çiçəklər və spiralvari formada düzülmüş yarpaqlar gözə çarpır.





**Möminə Xatun türbəsinin sərdabə Möminə Xatun türbəsinin sərdabəsinin onüzlü divarındakı cinağı naxış dayağının üzərindəki nəbati naxışlar**

Planda xaricdən onbucaqlı formasında olan Möminə Xatun məqbərəsinin qülləsinin on üzü də iç-içə iki tağça içərisinə salınmışdır. Birinci tağça düzbucaqlı formada, onun içərisindəki ikinci tağça isə stalaktitlidir. Düzbucaqlı formasındakı tağçalarda həm cəfəri şəbəkə sistemi, həm də epiqrafik yazı işlənmişdir. Abidənin stalaktitli tağçaları içərisində cəfəri şəbəkə sistemi böyük dəqiqliklə tətbiq edilmişdir. Stalaktitlər müqarna (pətəyəbənzər) tağ formasından yaranmışdır. Onun içərisi svastika və çarpazşəkilli ornamentlərlə doldurulmuşdur. Stalaktitlərdə və tağçaların içərisində firuzeyi kaşıdan (mayolikadan) istifadə olunmuşdur.





**Müqarnalı stalaktitin içindəki svastika Stalaktitli tağçalardan birinin**

**və çarpazşəkilli ornament içərisindəki firuzeyi kaşılar**

Bu stalaktitlər, üzərində müxtəlif naxışlar həkk olunmuş incə sütuncuqlar üzərində dayanır. Səthlər üzərindəki sütuncuqların orta hissələrində və başlıq hissələrində (kapitellərində) rombşəkilli dördbucaqlı və iki üz-üzə dayanmış buta formalı relyefli xonçalar işlənmişdir. Səthlər üzərində memarlıq elementləri (memarlıq detalları) ilə birgə tətbiq olunan ornamentlərin müxtəlif növlərinin işləndiyi bu abidə Naxçıvanda memarlıqla ornamentasiyanın sintezinin ən gözəl nümunələrindəndir.



**Sütuncuqların romşəkilli xonçaları Sütuncuqların üz-üzə dayanmış buta xonçaları**

Məqbərənin eksteryerindəki şəbəkəli tağçalarda kvadrat, düzgün altıbucaqlı və onların birgə kombinasiyalarından yaranan, mütənasiblik və qızıl bölgü mütənasiblik sisteminə əsaslanan girih həndəsi naxışları işlənmişdir. Şəbəkə sisteminin yaranmasında üç, dörd, beş, altı, səkkiz, on, on bir, on iki, on üçbucaqlı həndəsi ornamentlərdən istifadə olunmuşdur. Düzbucaqlı, romb, kvadrat və kublar da daxil olmaqla bu çoxbucaqlılar birləşərək üç, dörd, beş, altı, yeddi, səkkiz, on, on bir, on iki, on üçguşəli ulduzları əmələ gətirmişdir (Əliyev, 2007). Yaranmış bu ulduzlar da astral ornamentlər siyahısına daxildir.



**On üçbucaqlıdan yaranan on üçguşəli ulduz On ikibucaqlıdan yaranan on ikiguşəli ulduz**

Şəbəkə sisteminin içərisində nəbati naxışlar və epiqrafik ornamentlər işlənmişdir. Əcəmi Naxçıvani abidənin on səthi (üzü) üzərində həndəsi naxışlarla birlikdə sarmaşıqların və spiralvari naxışların birləşməsindən əmələ gələn islimi (arabeska) adlı nəbati naxışların və epiqrafik yazılı ornamentlərin kontaminasiyasını yaradaraq abidənin ornamental zənginliyi artırmışdır. Memar islimi naxışının islimibənd adlanan mürəkkəb növünü istifadə etmişdr (Qənbərova, 2008). İslimi adlanan nəbati ornamentlərdə lalə və yarpaq motivlərinin təsvirləri üstünlük təşkil edir. Lalə çiçəyi saf, təmiz

sevginin simvoludur. Abidənin üzərində bu bitki motivinin işlənməsi də Şəmsəddin Eldənizin xanımı Mömünə Xatuna bəslədiyi saf, təmiz sevginin təcəssüm formasıdır. Lalə motivli ornamentlər məqbərənin səthlərində madoksil naxış növünü əmələ gətirmişdir. Abidənin bir səthinin üzərində bitki ornamentlərindən olan palmet motivli naxış da işlənmişdir. Digər bir səth üzərində isə kvadrat formalı meandr ornamenti düzbucaqlı tağçanı П formasında haşiyələmişdir. Məqbərə üzərində su damcısı şəklində olan ornamentlərə də rast gəlinir (Qənbərova, 2007).




**Lalə motivli nəbati ornamentlər Palmet motivli nəbati ornamentlər**

Mömünə Xatun məqbərəsi üzərində işlənən kufi xətli epiqrafik ornamentlər səthlər üzərində ayrı-ayrı hissələrdə müxtəlif formalarda tətbiq edilmişdir. Belə ki, bu naxışlar tək söz olaraq da işlənmiş, epiqrafik haşiyə ilə çərçivələnmiş kitabə kimi də tətbiq edilmiş, cümlə formasında epiqrafik yazı olaraq da həkk olunmuşdur. Abidəyə giriş hissə tac elementləri ilə bəzədilmişdir. Məqbərənin çatmatağ şəkilli baştağının (giriş portalının) çərçivəsinə daxil olan, çatmatağçanın yuxarısında yerləşən filenka bəzəyindəki epiqrafik yazısında memarın adı yazılmışdır. Çatmatağçanın hər iki yanı bagetlərlə çərçivələnmişdir. Ondan yuxarıdakı kvadrat formalı meandr ornamenti ilə haşiyələnmiş linteldə isə abidənin tikilmə tarixi verilmişdir. Meandr ornamenti svastika elementindən əmələ gəlmişdir.




**Meandr ornamenti ilə haşiyələnmiş Çatmatağ şəkilli tağçanın lintel yanında yerləşən bagetlərdən biri**

Məqbərənin on səthindəki tağçaları çərçivələyən haşiyələrin hər biri də “Quran” ayələri və surələrlə П formasında haşiyələnmişdir. Bu yazılar isə eyni şəkildə cülmə naxışı, yəni dairə həndəsi naxışı ilə nəbati naxışının kompozisiyasından yaranan quş gözü naxışı ilə çərçivələnmişdir. Burada işlənmiş islimi naxış növündə lalə, hoya çiçəyi (beşləçəkli çiçək) və spiral şəklində burulmuş budaq və yarpaq motivləri istifadə olunmuşdur. Düzbucaqlı tağçaların içərilərinin baş tərəflərində, stalaktitlərin yuxarısında yenə də “Quran”dan ayələr olan zolaqlar verilmişdir. Tağçaların bəzilərində işlənən şəbəkələrin mərkəzlərində günəş şəklində ornamentin içərisində kufi xətti ilə “Allah” sözü işlənmişdir. Məqbərənin antablementinin ən üst hissəsi sayılan karniz hissə müqarnalı stalaktitlə bəzədilmişdir. Bu hissədə də adi və firuzeyi kaşılı kərpiclər kontaminasiya halındadır. Antablementin karnizdən aşağıda yerləşən digər hissəsində, yəni frizində məqbərənin inşasının əmrini verən hökmdarın adı, tikintini

başa çatdıran hökmdarın adı və abidənin kimin şərəfinə tikildiyi göstərilir. Friz hissənin epiqrafik yazısı bütövlükdə firuzeyi kaşı ilə bəzədilmişdir.





**İslimi naxışı ilə kompozisiya Epiqrafik yazılı yaratmış cülmə naxışı zolaq**

Abidənin interyerində günbəzin daxili səthində günəşi, ayı, planetləri təmsil edən 4 ədəd medalyon (xonça) işlənmişdir. Dairəvi formada olan bu qabarıq medalyonlar astral ornamentlər hesab olunurlar. İnteryerdəki bu medalyonlarda həm bitkisəl, həm həndəsi, həm də epiqrafik ornamentlər istifadə olunaraq bütöv bir kompozisiya əmələ gətirmişdir. Həndəsi ornamentlərdən dairə daxilinə çəkilmiş beşbucaqlı, səkkizbucaqlı, beşguşəli ulduz, altıguşəli ulduz, səkkizguşəli ulduz istifadə olunmuşdur. Bu ulduzvari kompozisiyaların içərisində kufi xətli epiqrafik yazı kimi İslam dininin sonuncu peyğəmbərinin, dörd xəlifənin və iki imamın adları həkk olunmuşdur. Bu ornamentlər "S" şəkilli dairəvi meandr formasında spiralvari nəbati naxışlarla haşiyələnmişdir. Dörd medalyonun hər birinin mərkəzinə "Allah" sözü yerləşdirilmişdir (Salamzadə, 1984). Aparılan tədqiqatlardan bəlli olmuşdur ki, türbənin interyerində biraz hündürlükdə qurşaq şəklində epiqrafik ornamentlərə daxil olan kufi xətli kitabə mövcud olmuş, lakin restavrasiya zamanı bərpası mümkün olmamışdır. Tədqiqatlar göstərmişdir ki, bu epiqrafik yazı zolağı abı rəngində (su rəngində, açıq mavi rəngdə) kaşı ilə işlənmişdir.

## Nəticə

Beləliklə, tədqiqatlarımızdan da göründüyü kimi Əcəmi Əbubəkr oğlu Naxçıvaninin yaratdığı hər bir əsər böyük estetik həzz mənbəyidir. Bu möhtəşəm arxitektura əsərləri sənətkarın yaradıcı dühasının gücünü əks etdirir. Əcəmi Naxçıvani bu əsərləri yaratmaqla zəmanəmizə ölməz irs buraxmışdır. Memarı bu dünyada ölümsüzləşdirən şey onun yaratdığı əzəmətli memarlıq abidələridir. Əcəmi Naxçıvani böyüklüyü dahi memarın inşa etdiyi əsərlər üzərində həkk olunan ornamentlərdə təşəkkül tapmışdır. Əcəmi Naxçıvaninin tikdiyi bütün memarlıq abidələri üzərində istifadə edilmiş hər bir ornament dərin mənalar kəsb edir. Memar inşa etdiyi abidələrdə memarlıqla ornamentasiyanın sintezini böyük ustalıqla tətbiq etmişdir. Bu abidələri seyr etdikcə Əcəmi elminin fantaziya zənginliyi bariz şəkildə özünü göstərir.

## ƏDƏBİYYAT

1. Əliyev, Q. (2007). Memar Əcəmi Naxçıvani yaradıcılığında ahəngdarlıq. Bakı: Şərq-Qərb, 160 s.

2. Qənbərova, G. (2008). Azərbaycan memarlıq bəzəyində işlədilən bitkisəl (əyrixətli) naxışlar (XI-XVIII əsr) // Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin Xəbərləri. İctimai və humanitar elmlər seriyası, №1. Naxçıvan: Tusi, 330 s.

3. Qənbərova, G. (2007). Azərbaycan memarlıq bəzəyində işlədilən xüsusi fiqurlar // Azərbaycan Milli Elmlər Akademiyasının Xəbərləri: Humanitar elmlər seriyası, №4. Bakı: Elm, 217 s.

4. Salamzadə, Ə. Ə. (2009). Tofiq Rəsulov. Şəbəkə. İstanbul: Mega, 48 s.

5. Salamzadə, Ə. V. (1984). Möminə Xatun türbəsindəki medalyonların tədqiqi // Azərbaycan abidələri: Elmi-kütləvi məcmuə. 1-ci buraxılış. Bakı: Azərnəşr, 120 s.

# TİKİNTİ İŞLƏRİNİN TEXNOLOGİYASI

**Məstəliyev Murad Abbas oğlu,Eyvazlı Mirarif Mirsalah oğlu**
*Azərbaycan Memarlıq və İnşaat Universiteti*
*Magistratura mərkəzi fakültəsi, Körpülər və avtomobil qurğularının tikintisi ixtisası*
*miriarif99@gmail.com, muradmesteliev@gmail.com*
*Azərbaycan,Bakı*

**Xülasə**

Məqalədə konstruksiyaların tikintisi və yığılması üçün vacib olan metodologiya və prosedurlara diqqət yetirilməklə tikinti texnologiyasının dərin tədqiqi təmin edilir. O, tikinti proseslərinin sənayeləşdirilməsini və mexanikləşdirilməsini vurğulayır, səmərəliliyi və mürəkkəbliyi artırmaq üçün müasir texnologiyanın inteqrasiyasını vurğulayır.

İş yeri və iş sahələri kimi əsas anlayışlar təqdim edilir və onların tikinti işlərinin asanlaşdırılmasında, resursların idarə edilməsində əhəmiyyəti vurğulanır. Bundan əlavə, məqalədə rasional tikinti üsullarına dair mühəndislik anlayışları təklif edən elmi bir intizam kimi tikinti istehsalı texnologiyası araşdırılır.

Bundan əlavə, məqalədə həm tikinti zonası daxilində, həm də xaricində hazırlıq işlərinin təsviri verilir, mühəndislik hazırlığının, müvəqqəti tikintinin və texnoloji axınların texniki hazırlanmasının vacibliyi vurğulanır. Ümumilikdə, məqalə müasir tikinti təcrübələrini və metodologiyalarını başa düşmək üçün vacib olan müxtəlif aspektləri əhatə edən tikinti texnologiyasının hərtərəfli icmalını təqdim edir.

**Açar sözlər:** tikinti işləri, texnologiya, tikili, bina, iş yeri

**Summary**

The article provides an in-depth study of construction technology, focusing on the methodologies and procedures essential to the construction and assembly of structures. It emphasizes the industrialization and mechanization of construction processes and the integration of modern technology to increase efficiency and sophistication.

Basic concepts such as workplace and work areas are introduced and their importance in facilitating construction work and resource management is emphasized. In addition, the article explores construction production technology as a scientific discipline that offers engineering insights into rational construction methods.

In addition, the article describes preparations both inside and outside the construction zone, emphasizing the importance of engineering preparation, temporary construction, and technical preparation of process flows. Overall, the paper provides a comprehensive overview of construction technology, covering various aspects important for understanding modern construction practices and methodologies.

**Keywords:** construction works, technology, building, building, workplace

## Giriş

Bütün dünyada baş verən sürətli urbanizasiya ilə yaşayış, ticarət və sənaye strukturlarının tikintisinə artan tələbat var. Bundan əlavə, yollar, körpülər, hava limanları və kommunal xidmətlər də daxil olmaqla infrastrukturun inkişafına ehtiyac var. Şəhərlər genişləndikcə və əhali artdıqca tikinti sənayesi bu tələblərin ödənilməsində həlledici rol oynayır.

Tikinti sənayesi sürətli texnoloji tərəqqilərin şahidi olur, o cümlədən Bina Məlumat Modelləşdirməsi (BIM), robototexnika, dronlar və qabaqcıl materialların qəbulu həmin yeniliklərdən bir neçəsidir. Bu yeniliklər tikinti proseslərini dəyişdirir, səmərəliliyi, təhlükəsizliyi və davamlılığı artırır. Tikinti texnologiyası mövzusu buna görə də aktualdır, çünki o, bu inkişaf edən tendensiyaları və onların sənaye üçün təsirlərini araşdırır.

Tikinti sənayesi məşğulluq yaratmaq, investisiyaları cəlb etmək və müxtəlif köməkçi sənayeləri dəstəkləməklə qlobal iqtisadiyyata əhəmiyyətli dərəcədə töhfə verir. Beləliklə, tikinti texnologiyasındakı irəliləyişlər məhsuldarlığın artmasına, xərclərə qənaətə və iqtisadi artıma səbəb ola

bilər. Tikinti metodologiyaları və səmərəliliyin təkmilləşdirilməsi ilə bağlı mövzuların tədqiqi buna görə də iqtisadi faydaları artırmaq istəyən maraqlı tərəflər üçün çox vacibdir.

Tikinti texnologiyası mövzusu urbanizasiya tendensiyaları, texnoloji irəliləyişlər, davamlılıq narahatlıqları, iqtisadi təsirlər və dayanıqlı infrastruktura ehtiyac səbəbindən çox aktualdır. Bu mövzuları tədqiq etməklə, maraqlı tərəflər müasir dövrdə tikinti sənayesinin üzləşdiyi çətinlikləri və imkanları daha yaxşı həll edə bilərlər.

**Material və metod**

Tikinti texnologiyası ilk növbədə bina və tikililərin tikintisi və montajında istifadə olunan metodologiyaları və prosedurları əhatə edir. Buraya tikintinin sənayeləşdirilməsi, quraşdırma işlərinin geniş mexanikləşdirilməsi, tikinti komponentlərinin hazırlanması, montaj texnikasının tətbiqi, nəqliyyat logistikası və s. daxil edilir. Tikinti sahələrində müasir texnikanın inteqrasiyası tikinti proseslərinin səmərəliliyini və mürəkkəbliyini artırır.

Tikinti prosesi işçiləri bina və qurğuların qurulmasında müxtəlif vəzifələri yerinə yetirmək üçün alətlərdən istifadə etməyi əhatə edir. Bu proseslər mürəkkəbliyinə görə sadədən mürəkkəbə qədər dəyişir. Mexanikləşdirmə tez-tez tikinti işlərində istifadə olunur, işçilər maşın və mexanizmlərin işinə nəzarət edirlər.

İnşaat işlərində müxtəlif sənətkarlar və fəhlələr iştirak edirlər. Daha sadə tapşırıqlar üçün fərdi işçilər əməliyyatları yerinə yetirirlər, halbuki daha mürəkkəb tapşırıqlar üçün eyni peşədə xüsusi bacarıqlara malik 4-5 nəfərdən ibarət komandalar tələb olunur ki, bu da məhsuldarlığın artmasına səbəb olur. Bu komandalar adətən 15-20 nəfərdən ibarət mürəkkəb briqadalar kimi tanınan müxtəlif ixtisaslı işçilərdən ibarət mütəşəkkil qruplarla betonçular və ya kərpicçilər kimi briqadalar yarada bilərlər [1, s. 96].

Tikinti fəaliyyətlərinin həyata keçirildiyi təyin edilmiş sahə, mənzil işçiləri, materiallar və mexanizmlər iş yeri adlanır. İş yeri daxilində müəyyən tapşırıqların icrası və resursların yığılması üçün ayrılmış xüsusi sahələr iş sahələri adlanır.

Tikinti istehsalı texnologiyası, tikinti-quraşdırma işlərinin yerinə yetirilməsi üçün rasional üsullar haqqında mühəndislik məlumatlarının toplusunu ehtiva edən elmi bir intizamdır. Tikinti istehsalı bir-biri ilə əlaqəli tikinti işlərinin kompleksidir, bu müddət ərzində bina və tikililərin tikintisi aparılır [1, s. 97].

Tikinti işləri istehsal üsuluna görə (qalib, quraşdırma, istilik izolyasiyası və s.) və ya emal olunan materialların növünə (torpaq, daş, beton və s.) görə fərqlənir. Tətbiq sahəsinə görə tikinti işləri ümumi tikinti, xüsusi və köməkçi bölünə bilər. Ümumi tikinti tikinti konstruksiyalarının özlərinin həyata keçirilməsi ilə bağlı bütün işləri əhatə edir (yolların çəkilməsi, kommunikasiya kanallarının çəkilməsi, bünövrə və divarların qurulması, döşəmələrin, damların quraşdırılması və s.). Xüsusi işlərə sanitar və ventilyasiya sistemlərinin quraşdırılması, kommunikasiyaların istilik izolyasiyası, elektrik quraşdırması və s. aiddir. Köməkçi işlərə nəqliyyat və yükləmə-boşaltma işləri, eləcə də tikinti ilə bağlı bəzi işlər, məsələn, yeraltı suların susuzlaşdırılması və s. daxildir [3].

Tikinti işləri öz növbəsində bir və ya bir neçə işçi tərəfindən yerinə yetirilən çoxlu sayda iş əməliyyatından ibarət olan tikinti proseslərinin məcmusudur. İş əməliyyatı tikinti prosesində əsas əlaqə olan iş üsullarından ibarətdir. Tikinti prosesinin nümunəsi ekskavatordan istifadə edərək çuxurun işlənməsidir. Bu halda, iş əməliyyatı ekskavator çömçəsi ilə torpağın yığılması, iş üsulu isə idarəetmə sapının işə salınmasıdır.

Tikinti prosesləri həyata keçirilmə xüsusiyyətinə görə mexanikləşdirilmiş və ya mexanikləşdirilməmiş, mürəkkəblik dərəcəsinə görə sadə və ya mürəkkəb ola bilər. Sadə proseslər az sayda əməliyyatdan ibarətdir və bir işçi və ya bir vahid tərəfindən yerinə yetirilir. Mürəkkəb proseslər eyni ixtisasın işçiləri tərəfindən yerinə yetirilən bir neçə sadə proseslərdən ibarətdir. Mürəkkəb prosesə misal olaraq, texnoloji cəhətdən bir-biri ilə əlaqəli sadə proseslərin - plitələrin qoyulması, birləşmələrin quraşdırılması və s. həyata keçirildiyi döşəmələrarası tavanın quraşdırılmasıdır. Mürəkkəb prosesin son nəticəsi tamamlanmış obyekt və ya strukturdur. Mürəkkəb prosesin nümunəsi dəmir-beton bina çərçivəsinin quraşdırılmasıdır. Bu zaman quraşdırma prosesi zamanı bir sıra proseslər yerinə yetirilir: yığma elementlərin quraşdırılması, quraşdırılmış hissələrin qaynaqlanması, tikişlərin groutlanması və s.

Tikinti zonasından kənarda aparılan hazırlıq işləri üç qrupa birləşdirilə bilər [2, s. 25]:

I qrup - ərazinin inkişafı üçün mühəndis hazırlığı;

II qrup - müvəqqəti tikililərin tikintisi;

III qrup - texnoloji axınların mühəndis-texniki hazırlanması.

Tikinti zonası daxilində aparılan hazırlıq işləri iki qrupa (IV və V) birləşdirilir: tikinti zonasının mühəndis hazırlığı və mühəndis texnoloji hazırlığı.

**Nəticə**

Sonda məqalədə müasir tikinti təcrübələrində əhəmiyyətini vurğulayaraq tikinti texnologiyasına hərtərəfli baxış verilir. Metodologiya və prosedurların inteqrasiyası vasitəsilə tikinti prosesləri sadələşdirilir, nəticədə səmərəlilik və mürəkkəblik artır. Fərdi ustalardan tutmuş ixtisaslaşdırılmış komandalara qədər işçilərin cəlb edilməsi sadədən mürəkkəb əməliyyatlara qədər müxtəlif vəzifələrin icrasında mühüm rol oynayır.

İş yerinin təşkili və iş sahəsinin idarə edilməsi kimi əsas anlayışlar tikinti sahələrində resursların optimallaşdırılması və tapşırıqların icrasının vacibliyini vurğulayır.

İstehsal üsullarına və emal edilmiş materiallara əsaslanan tikinti işlərinin təsnifatı tikinti fəaliyyətinin müxtəlif təbiəti haqqında dəyərli fikirlər təklif edir. Ümumi tikinti prosesindən tutmuş xüsusi və köməkçi işlərə qədər hər bir kateqoriya ümumi tikinti prosesində müəyyən məqsədə xidmət edir.

Nəhayət, həm tikinti zonasından kənarda, həm də tikinti zonasında hazırlıq işlərinin təsviri dəqiq planlaşdırmanın və mühəndis hazırlığının vacibliyini vurğulayır. Ümumilikdə, məqalə tikinti texnologiyasının hərtərəfli başa düşülməsini təmin edir, onun müasir tikinti təcrübələrində və infrastrukturun inkişafında əsas rolunu işıqlandırır.

**Ədəbiyyat siyahısı**

1. Abbasov C.Q., “Tikinti işlərinin əsasları”, Bakı, 2010, 152 s.
2. Волков М.А., Мищенко Р.В., “Технология строительного производства” // Строительство и архитектура, 2017, 25-26 с.
3. https://uno-md.ru/tekhnologiya-stroitelstva/

# TARIXI MÜHITDƏ DAVAMLI INKIŞAF

**MEHDIZADƏ QƏMƏR**
Bakı Mühəndislik Universiteti
Memarlıq və İnşaat/Bina və qurğuların memarlığı
*q.mzade@mail.ru*
BAKI, AZƏRBAYCAN

**XÜLASƏ**

Son illərdə artan əhali və texnoloji inkişaf səbəbiylə bütün dünyada insanların şüursuz istehlakı artmışdır. Bu həddindən artıq istehlak yönümlü həyat tərzi resursların gələcəyi ilə bağlı narahatlıqların artmasına səbəb oldu və davamlılıq anlayışının inkişafına təkan verdi. Yaxın keçmişdən həyatımızda yer tutan bu anlayış sürətlə bir çox sahələrə yayılır və günü-gündən daha çox əhəmiyyət kəsb edir. Davamlılıq bir cəmiyyətin, ekosistemin və ya hər hansı bir sistemin işinin pozulmadan, həddindən artıq istifadə ilə istehlak edilmədən və ya həyatdan asılı olan əsas qaynaqlara çox yüklənmədən davamlı inkişaf etdirilməsi kimi ifadə edilə bilər. Davamlı inkişaf hazırkı zamanın tələblərini ödəyən, lakin gələcək nəsillərin öz şəxsi tələbatlarını ödəməyi təhlükə altına qoymayan və bu zaman digər ölkələrin milli suverenliyinə təhlükə yaratmayan inkişafdır. Davamlı inkişafın təsir etdiyi sahələrdən biri də tarixi mühitdir. Tarixi mühitlər keçmişin mədəniyyətinin izlərini daşıyan ən mühüm miraslarımızdan biridir. Tarixi mühitdə davamlılıq problemi müxtəlif xarici ölkələrin memarları və

mütəxəssisləri tərəfindən öyrənilmiş, ona qarşı tədqiqat işləri aparılmışdır. Mövzunun müəyyən aspektlərinin ölkə memarları və mütəxəssisləri tərəfindən öyrənilməsinə baxmayaraq, bu mövzu müstəqil tədqiqat predmeti olmamışdır. Son illərdə təbiətin mühafizəsi, tarixi mühitlərin qorunması və başqa sahələrlə bağlı konkret addımlar atılsa da, bunlar yetərli deyil. Regionun və tarixi mühitlərin davamlılığı üçün daha çox səylərə ehtiyac vardır. Bu söylənənlər məqalənin aktuallığını əsaslandırmış olur.

**AÇAR SÖZLƏR: Davamlılıq, davamlı inkişaf, təhlükəsizlik**

**SUMMARY**

In recent years, due to the growing population and technological development, people's unconscious consumption has increased all over the world. This overconsumption-oriented lifestyle has led to increased concerns about the future of resources and has fueled the development of the concept of sustainability. This concept, which has been in our lives since the recent past, is rapidly spreading to many areas and is becoming more important day by day. Sustainability can be defined as the sustainable development of a society, ecosystem or any system without disrupting, over-consuming or over-taxing the basic resources on which life depends. Sustainable development is development that meets the needs of the present, but does not jeopardize the satisfaction of future generations' own needs and does not threaten the national sovereignty of other countries. One of the areas affected by sustainable development is the historical environment. Historic environments are one of our most important heritages, bearing traces of the culture of the past. The problem of sustainability in the historical environment has been studied by architects and specialists of various foreign countries, and research works have been conducted against it. Although certain aspects of the subject have been studied by architects and specialists of the country, this subject has not been the subject of independent research. Although concrete steps have been taken in recent years regarding nature protection, preservation of historical environments and other areas, they are not enough. More efforts are needed for the sustainability of the region and historical environments. What has been said justifies the relevance of the article.

**KEY WORDS: Sustainability, sustainable development, security**

## GIRIŞ

Dünyada əhalinin artması istehlak dəyərlərinin də bu istiqamətdə yüksəlməsinə səbəb olmuşdur. Bu isə resursların gələcəyi ilə bağlı narahatlıqların artmasına səbəb oldu və davamlılıq anlayışının inkişafına təkan verdi. Davamlılıq, gələcək nəsillərin ehtiyaclarını ödəmək qabiliyyətinə xələl gətirmədən öz ehtiyaclarımızı ödəmək kimi izah edilir. Biz resursların məhdud olduğunu bilməliyik və resurslardan istifadənin uzunmüddətli nəticələrini də ağıllı şəkildə qiymətləndirməyi bacarmalıyıq.

Təbiətin məruz qaldığı müdaxilələr davamlılıq anlayışının yaranmasına mühüm təsir göstərir. İnsanların qida ehtiyaclarını ətraf mühitdən aldığını nəzərə alsaq, insan-təbiət qarşılıqlı əlaqəsinin ilk insan dövrünə təsadüf etdiyi görülür. O vaxtdan bəri insanlar müəyyən həyat ehtiyaclarını ödəmək üçün təbiətə müdaxilə etdilər. Dünya əhalisinin sürətlə artması zaman keçdikcə bu müdaxilələrin artmasına səbəb olmuşdur. Əhalinin sürətli artımı, iqtisadi artımı həyata keçirmək üçün təbii ehtiyatlardan və ətraf mühitdən şüursuz və həddindən artıq istifadə, insan həyatı üçün əvəzolunmaz olan havanın, suyun, torpağın və dənizin çirklənməsinə, bəzi canlı növlərinin nəslinin kəsilməsinə, bəşəriyyətin sağlam gələcəyə sahib olmaq narahatlığının artmasına səbəb olmuşdur.

Bu gün böyük bir sektora çevrilən sənayeləşmənin nəticəsi olan texnoloji inkişaflar gün keçdikcə insan həyatına daha çox yayılmaqdadır. Bir çox sahədə fərqli üstünlüklər təmin edən yeni texnologiyaların çoxunun səbəb olduğu ətraf mühitin çirklənməsi və sənayeləşmənin yaratdığı zərərli tullantılar da davamlılıqla bağlı narahatlıqlara səbəb olur. Şüursuz istehlak, qənaətin olmaması, məlumat çatışmazlığı və s. vəziyyətləri də davamlılığın ortaya çıxmasında təsirli olan digər səbəblər arasında göstərmək olar.

Davamlılıq anlayışı ümumiyyətlə dövlətin diqqət mərkəzində olan nəsillərin müntəzəm həyat şəraitinə istinad etdiyi halda, davamlı inkişaf daha çox proses yönümlüdür və bu inkişaf tipində vəziyyətlərin irəliləməsinə imkan verən dəyişikliklərin idarə edilməsi ilə bağlıdır. Davamlı inkişaf konsepsiyası sosial-mədəni mühitin və inkişafın tarazlı inkişafını təmin etmək məqsədi ilə və artan ekoloji problemlər, aclıq, yoxsulluq, əhali problemlərinin həlli yollarının axtarılması nəticəsində

yaranmışdır. İnkişaf, o cümlədən cəmiyyətin həyat şəraiti bu şəraitin daim yaxşılaşdırılmasına diqqət yetirməlidir. Bu çərçivədə təhsil səviyyəsi, texnoloji irəliləyişlər, orta ömür, gəlir səviyyəsi, investisiyaların miqdarı, sülh mühiti kimi iqtisadi, mədəni, sosial, siyasi və s. bir çox komponentlər işlənib hazırlanır.

Azərbaycan həm ümumilikdə iqtisadiyyatda, həm də onun ayrı-ayrı sektorlarında inkişaf, davamlı inkişaf və ətraf mühitin mühafizəsi üçün hərtərəfli strategiyalar hazırlayır. Yaşıl iqtisadiyyatın və dayanıqlı istehlak və istehsal siyasətinin həyata keçirilməsinin əsas vəzifələri "Azərbaycan-2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında müəyyən edilib. İnkişaf Konsepsiyasının uzunmüddətli hədəflərinə səmərəli dövlət tənzimlənməsinə və bazar münasibətlərinə əsaslanan iqtisadi modelin hazırlanması, dayanıqlı sosial-iqtisadi inkişafın təmin edilməsi, iqtisadiyyatın strukturunun təkmilləşdirilməsi, elmi potensialın və innovasiyaların dəstəklənməsi, nəqliyyatın təkmilləşdirilməsi daxildir.

Azərbaycanda "yaşıl" mal və xidmətlərin alınması, eləcə də milli təchizatçılar tərəfindən müvafiq "yaşıl" tariflə bərpa olunan enerji mənbələrinin böyük həcmdə alınması geniş müzakirə olunur. Azərbaycanda ətraf mühitin dəstəklənməsi və keyfiyyətinin yaxşılaşdırılması, milli və xarici investisiyaların cəlb edilməsinə yönəlmiş yeni texnologiyaların tətbiqi üçün stimullaşdırıcı tədbirlərin (maliyyə, kredit, amortizasiya və s.) tətbiqi imkanları nəzərdən keçirilir. Dövlət texnoloji imkanları və ekoloji prinsipləri artırmaq üçün beynəlxalq texniki yardım cəlb etməyə çalışır.

Ermənistanla Azərbaycan arasında münaqişənin sona çatması təkcə Azərbaycan üçün deyil, həm də region üçün yeni iqtisadi imkanlar yaradır. Bu baxımdan işğaldan azad edilmiş və münaqişədən zərər çəkmiş ərazilərin bərpası, yenidən qurulması və reinteqrasiyası Azərbaycanın növbəti illərdə inkişaf prioritetlərinin əsas istiqamətlərindən biri olacaqdır.

İnkişaf planları hazırlanarkən qısa, orta və ya uzunmüddətli perspektivdə bir çox hədəflər müəyyən edilir. Cəmiyyətin ehtiyaclarını bu məqsədlərlə qarşılamağa çalışarkən, gələcək nəsillərin ehtiyacları da bu mərhələdə nəzərə alınmalıdır.

Ümumilikdə davamlılıq anlayışı İqtisadi, Ekoloji, Sosial və Mədəni Davamlılıq kimi qəbul edilə bilər. Bir-biri ilə qarşılıqlı əlaqədə olan bu anlayışların nəzərə alınması daha yaxşı dayanıqlı inkişafın əldə edilməsində mühüm rol oynayır.

İqtisadi Davamlılıq: Cəmiyyət üzvlərinin bütün ehtiyaclarını və ya ən azı məcburi ehtiyaclarını ödəmək və gələcək nəsillərin ehtiyaclarını ödəyəcək iqtisadi struktur yaratmaq "İqtisadi Davamlılıq" olaraq təyin olunur (Sarkım, 2007). Dəyişən iqtisadiyyat sosial həyata da təsir edir. İqtisadiyyatı müsbət istiqamətdə inkişaf edən cəmiyyətlərdə həyat standartları da bu çərçivəyə görə dəyişir. Eyni zamanda, əhalinin durmadan artması iqtisadiyyata təsir edərək resursların daha sürətli istehlakı problemini də gündəmə gətirir. Bütün bunlar istehlak balansına təsir edə bilər və resursların gələcək nəsillərə ötürülmə sürətini dəyişə bilər.Tarixi mühitlərdə baş verən turizm fəaliyyətləri də davamlı iqtisadiyyata töhfə verə bilər. Tarixi mühitlərdə düzgün turizm və konservasiya siyasətinin tətbiqi şəhərdə canlanma yaratmaqla şəhərin iqtisadi parametrlərini müsbət istiqamətdə dəyişə biləcək.

Ekoloji Davamlılıq: Əsas ekoloji proseslərin, bioloji müxtəlifliyin və bioloji resursların davamlılığını təmin edən inkişafların qurulması "Ətraf mühitin davamlılığı" kimi müəyyən edilmişdir. Ətraf mühit həyat tsiklində mühüm rol oynayır (Sarı, 2001). Ətraf mühitin təklif etdiyi resurslardan uzun müddət faydalanmaq ancaq şüurlu istehlakla mümkün ola bilər. İnsan ehtiyacları günü-gündən artır və resursların ehtiyatlarını təhlükə altına alır. Xüsusilə bu ehtiyatlardan bərpa olunmayanlar ehtiyatsız istifadə nəticəsində məhv olmaq təhlükəsi ilə üzləşə bilər. Düzgün ətraf mühitin mühafizəsi şüuru ilə yaradılan istehlak balansı ekoloji davamlılıqda mühüm yer tutur. Təbii mühitdə olduğu kimi tarixi mühitlərdə də ekoloji davamlılıq təmin edilməlidir. Sivilizasiyaların ən böyük şahidləri olan bu bölgələrdəki zəngin tarixi irs, faktura və mühitin davamlı istifadə sayəsində nəsillərarası keçid təmin edilərkən zədələnməsinin qarşısı alınmalıdır.

Sosial və Mədəni Davamlılıq: Sosial və mədəni davamlılıqda cəmiyyətin şəxsiyyətini gücləndirən və qoruyan, insanların həyat keyfiyyətini yüksəldən inkişaflar təmin edilir (Sarı, 2001). Sosial kapitalın bir hissəsini təşkil edən və dürüstlük, qanunlar və nizam-intizam kimi sosial həmrəylik, institutlar, mədəni kimlik, müxtəliflik, hörmət, tolerantlıq, təvazökarlıq, şəfqət və sevgi kimi ümumi qəbul edilmiş standartlar sosial davamlılığın mühüm elementlərini təşkil edir (Goodland, 1995). Mədəni davamlılıq anlayışında isə vurğu ənənəvi yanaşmaya deyil, ölkələrin keçmişinə aid irsin, onların məskunlaşma şərtləri və prinsiplərinin böyük bir qaynaq olduğunun qəbul edilməsidir. Hər bir

nəslin digər mədəniyyətlərlə qarşılıqlı əlaqədə olmaq, yenilərini əlavə etmək və yeni nəsillərə ötürmək vəzifəsi və məsuliyyəti vardır və bu, mədəni davamlılıqdır (Cebeci, Çakılcıoğlu, 2002).

Mədəni davamlılıq tarixi mühitlərə də aiddir. Çünki tarixi mühitlər keçmişin mədəniyyətinin izlərini daşıyan ən mühüm miraslarımızdan biridir. Fiziki mühit insani və təbii, mədəni, sosial və süni elementləri özündə birləşdirən və bu hadisələrin davamlı və dəyişkən şəkildə bir-biri ilə qarşılıqlı əlaqədə olduğu dinamik bir hadisə olsa da "tarixi" sözü lüğətdə keçmiş dövrlərdən qalan, tarix və sənət baxımından dəyəri olan bir şey üçün istifadə olunur. Tarixi mühitdə formalaşma və tikinti xüsusiyyətlərinin ehtiyaclarını təhlil edərkən mədəni parametrlər çox vaxt rəhbər ola bilər. Keçmiş məlumatların göstəricisi olan hər cür daşınar və ya daşınmaz əşyaları ehtiva edən tarixi mühitlər, zamanla şahid olduqları dövrlərin sosial, mədəni, iqtisadi və texnoloji cəhətlərini əks etdirir və daha ətraflı şəkildə, cəmiyyətin həyat təcrübələrini, duyğularını, düşüncələrini, zövqlərini, anlayışlarını, biliklərini, bir sözlə, bütün xüsusiyyətlərini əks etdirir. Keçmiş sivilizasiyalara aid hər cür mədəni və tarixi dəyərlər cəmiyyətlər tərəfindən hörmətlə qəbul edilməli, qorunub saxlanmalı və sonrakı nəsillərə çatdırılmalı, digər cəmiyyətlərə də onun tarixi keçmişi haqqında məlumat verilməli və bu yolla universallaşdırılmalıdır. Ona görə də tarixi mühitlərə davamlılıq, davamlı memarlıq anlayışı tətbiq edilməlidir.

Qoruma tarixi obyektin mümkün qədər bütün elementləri ilə canlı saxlanılmasıdır. Keçmişdə cəmiyyətin sosial-iqtisadi şərtlərini və mədəni dəyərlərini özündə əks etdirən fiziki quruluşun günümüzün dəyişən sosial və iqtisadi şərtlərində məhv olmasının qaşısını alaraq müasir cəmiyyətdə müasir inkişaflarla inteqrasiya edərək həyatda qalmasını təmin edir. Qorunmanın zəruriliyini əks etdirən bu vəziyyəti təmin etmək üçün sözügedən tarixi mühitlərə təsir edən bütün komponentlər (hökumətlər, yerli özünüidarəetmə orqanları, yerli əhali, turistlər və s.) qoruyucu olmalı və zərərli münasibətdən uzaq olmalıdır. Ona görə də tarixi mühitlərin davamlılığının təmin edilməsində əvəzedilməz vasitələrdən biri olan mühafizə anlayışının düzgün siyasət və hərəkətlərlə həyata keçirilməsi vacibdir.

Əvvəllər konservasiyanın məqsədi strukturun ayaqda qalması, dağılmış hissələrinin təmiri ilə formal bütövlüyünün qorunması və dəyişən tələblərə uyğun olaraq yeni əlavələrlə funksionallığının təmin edilməsi idisə, bu gün abidələr və tarixi mühit müəyyən bir dövrün şəhər və memarlıq forması, tikinti texnikası və ictimai həyatını izah edən bir sənəd kimi qəbul edilib və tarixi abidələrin və mühitlərin yaşamasını şansa buraxmayaraq, milli və ümumbəşəri mədəniyyətin tərkib hissəsi, sivilizasiya sənədi kimi qorunub saxlanmasını hədəfləyir

Əhəmiyyətli sərvətləri ehtiva edən tarixi mühitlər tarixi proses boyu müəyyən dərəcədə korlanmaya, köhnəlməyə və ya dağılmaya məruz qalır. Keçmişin bu mühüm tarixi mühitlərinin yalnız bir hissəsi günümüzə qədər gəlib çatmışdır. Bu mühitlərin davamlılığını təmin etmək və onların nəsildən-nəslə ötürülməsinə şərait yaratmaq lazımdır. Tarixi mühitlərin davamlılığını təmin etmək üçün aparılan konservasiya işlərində ilk növbədə, bu mühitləri təşkil edən ənənəvi tikililərin qorunmasının zəruriliyi ön plana çıxır.

Davamlı memarlıq davamlı inkişaf prinsiplərinin binaların dizaynına, tikintisinə və istismarına tətbiq edilməsidir. Əsas məqsədləri enerji səmərəliliyi və ümumi ətraf mühitə təsirlərin azaldılmasıdır. Davamlılığa nail olmaq üçün beş amil nəzərə alınır (ekosistem, enerji, material növü, tullantı və hərəkətlilik). Digər tərəfdən, mənbələrin qənaətinə nail olmaq və dizaynı istifadəçiyə görə təsəvvür etməkdir. Bu amillər və prinsiplər nəzərə alındıqda, binanın ömrü boyu daha çox enerji səmərəliliyi əldə edilir. Bu səmərəlilik dizayn, tikinti, doldurma və istismar səviyyəsində əldə edilir.

Tarixi davamlılıq prosesində bu konsepsiyanın beynəlxalq səviyyədə tanınmasının təmin edilməsi baxımından bir çox hadisələr olmuşdur. Onlardan biri də 1984-cü ildə yaradılan BMT Baş Katibinin təşəbbüsü ilə BMT nəzdində "Ətraf mühit və inkişaf" üzrə Beynəlxalq Komissiyasıdır. Komissiya 1987-ci ildə 23 ölkənin ekspertlərinin köməyi ilə hazırlanmış "Bizim ümumi gələcəyimiz" adlı məruzəni dərc etdi. Bu məruzə davamlılıq konsepsiyasının dünya gündəminə gətirilməsi istiqamətində mühüm addım atmışdır. Mövcud sosial-iqtisadi və ekoloji vəziyyətin pisləşməsinin ölçülərini vurğulayan bu hesabat ümumi mənada dünyanı təhdid edən ekoloji problemlərin və bu problemlərin həlli üçün beynəlxalq səviyyədə nələrin edilməsi lazım olduğunun təqdimatıdır. Bundan əlavə, bu hesabatda davamlılıq anlayışı üçün verilən tərif ilk rəsmi tərifdir.

BMT Baş Asambleyasının tövsiyəsi əsasında Dünya Sammiti 2015–2030-cu illər üzrə 17 məqsəd irəli sürmüş və 193 ölkə davamlı inkişafla bağlı irəli sürülən bu məqsədləri həyata keçirmək üçün

öhdəlik götürmüşlər. 2030-cu ilə kimi Dünya ölkələri tərəfindən davamlı inkişafla bağlı həyata keçirilməsi nəzərdə tutulan bu məqsədlər aşağıdakılardır (Wikipedia, 2024):

- Planetimizdə yoxsulluğun bütün formalarına son qoymaq;
- Bütün Dünyada aclığa və qida çatışmazlığına son qoymaq;
- İnsan sağlamlığının təmin edilməsi;
- Cəmiyyətdə əhalinin inklüziv və bərabər keyfiyyətli təhsillə təmin olunması;
- Gender bərabərliyinə nail olmaq;
- İnsanların təmiz içməli suya əlyetərliyini təmin etmək və sanitariya vəziyyətini yaxşılaşdırmaq;
- Planetin əhalisini davamlı enerji sistemi ilə təmin etmək;
- Dayanıqlı iqtisadi artım, layiqli əmək və işsizliyi aradan qaldırmaq;
- Davamlı sənaye, innovasiya və infra strukturun təmin edilməsi;
- Ayri-ayrı dünya ölkələr arasında getdikcə genişlənməkdə olan bərabərsizliyin azaldılması;
- Yaşayış məskənlərinin davamlılığına nail olmaq. Davamlı şəhərlər və icmalar;
- Davamlı istehsal və məsuliyyətli istehlakı təmin etmək;
- İqlim dəyişikliyinə qarşı mübarizə;
- Dəniz ekosisteminin mühafizəsi;
- Torpaq ekosisteminin mühafizəsi;
- Davamlı inkişafın təmin edilməsi üçün sülh və ədalətin təşviq edilməsi;
- Davamlı inkişafa keçilməsi prosesində qarşıyaqoyulan məqsədlərin yerinə yetirilməsi üçün tərəfdaşlığın genişləndirilməsi.

**TƏDQIQAT METODU**

Bu məqalədə tədqiqat metodu kimi böyük bir sektora çevrilən sənayeləşmənin nəticəsi olan texnoloji inkişafın insanlara, ərazilərə və tarixi mühitlərə olan müsbət və mənfi təsirləri, bu təsirlərin aradan qaldırılması üçün yaradılan davamlılıq və davamlı inkişafın tətbiqi məsələləri, yazılı və elektron materialllardan istifadə edilərək təhlil edilmişdir.

**NƏTICƏ**

Bu gün davamlılıq anlayışı artan daimi əhali və bununla əlaqəli sıx istehlak ilə mühüm bir nöqtəyə gəldi. Yer üzündəki sərvətlərin qorunub saxlanılması və gələcək nəsillərə ötürülməsi bugünkü cəmiyyətlərin davamlı bir anlayışla qaynaqlardan istifadə etməsi ilə mümkündür. Gələcək nəsillər üçün təkcə təbii və fiziki sərvətlər deyil, eyni zamanda tarixi mühit, sosial-mədəni faktura da çatdırılmalıdır.

Bu davamlı inkişaf planlaşdırılmasında idarəetmə, mühafizə, nəqliyyat, turizm, iqtisadi struktur, tarixi ekoloji maarifləndirmə, əhalinin sıxlığı başlıqlarına uyğun olaraq hədəflər, strategiyalar və tədbirlər hazırlanmışdır. İdarəetmə çərçivəsində davamlı inkişaf planlaşdırmasının həyata keçirilməsi üçün çoxşaxəli iştirakla lazımi yardım və dəstək qruplarının yaradılması istiqamətində tədbirlərin görülməsi vacibdir.

**ƏDƏBIYYAT SIYAHISI**

1. Sarkım, M. Sürdürülebilir turizm kapsamında turistik ürün çeşitlendirme politikaları ve Antalya örneği. Doktora tezi, Dokuz Eylül Üniversitesi Sosyal Bilimler Enstitüsü (**Konfrans məqaləsi, tezis**), İzmir. 2007: 1-426.

2. Sarı, Y. Amasra İlçesi'nin doğal ve kültürel peyzaj değerlerinin sürdürülebilir turizm bağlamında irdelenmesi. Yüksek Lisans tezi, Zonguldak Karaelmas Üniversitesi Fen Bilimleri Enstitüsü (**Konfrans məqaləsi, tezis**), Bartın. 2001:1-185.

3. Goodland, R. The concept of environmental sustainability. Annual Review of Ecology and Systematics (26) (**Jurnal məqaləsi**), Washington. 1995:1-24.

4. Cebeci, Ö.F., Çakılcıoğlu, M. Kültürel Sürdürülebilirlik. 10. Ulusal Bölge Bilimi/Bölge Planlama Kongresi (**Konfrans məqaləsi, tezis**), İstanbul. 17-18 Ekim 2002:317-320.

5. Dayanıqlı inkişaf, https://az.wikipedia.org/wiki/Dayan%C4%B1ql%C4%B1_inki%C5%9Faf

# БУЛЬВАР БАКУ - ПУТЬ К НОВОЙ УРБАНИСТИЧЕСКОЙ ЭПОХЕ

**КОРШУНОВ МАКСИМ**
Азербайджанский университет архитектуры и строительства
Факультет Градостроительства
*mksm.korsh@gmail.com*
БАКУ, АЗЕРБАЙДЖАН

**АННОТАЦИЯ**

Бульвар Баку — не просто городская артерия, это палитра истории, где прошлое тесно переплетается с будущим. Участок бульвара, стартующий от Белого города и тянущийся к району Зых, претерпел изменения, став свидетелем не только великого промышленного расцвета, но и упадка, хаотичной застройки данной территории. Среди его компонентов территории— заброшенные некогда величественные Нобелевские заводы, олицетворяющие прогресс и вызов. Однако с выпуском Генерального Плана 2040 года, эта область стала центром внимания, подвергаясь масштабной реновации и преобразованиям. Планы включают объединение данного сегмента Бульвара с другими участками, создание самого протяжённого бульвара в мире, символизируя единство городской структуры. Это станет важным этапом в развитии городской инфраструктуры, а так же в становлении бульвара как мирового достояния культуры.

**КЛЮЧЕВЫЕ СЛОВА: БАКУ-1, БУЛЬВАР-2, БЕЛЫЙ ГОРОД-3, ПРОСПЕКТ 8 НОЯБРЯ-4**

**SUMMARY**

Baku Boulevard is not just a thoroughfare of the city; it's a palette of history where the past closely intertwines with the future. The part of the Boulevard, stretching from the White City to the Zykh district, has undergone changes, witnessing not only the great industrial boom, but also the breakdown and chaotical build up of this territory. There are the once magnificent Nobel factories among its components of the territory, which are epitomise progress and challenges. However, with the release of the General Plan of 2040, this area has become the center of attention, undergoing extensive renovation and transformation. Plans include integrating this segment of the Boulevard with other areas, creating the longest boulevard in the world and symbolizing the unity of the urban structure. This will be an important step in the development of the urban infrastructure, as well as the establishment of the boulevard as a world cultural heritage.

**KEYWORDS: BAKU-1, BOULEVARD-2, WHITE SITY-3, PROSPECT 8 NOVEMBER-4**

## ВВЕДЕНИЕ

Бакинский бульвар - это не только территория в центре города, но и живой организм, имеющий высокий исторический и культурный потенциал.

Памятники архитектуры и культуры, создаваемые в течение длительного исторического периода, уже стали городскими символами, представляя собой новые возможности для развития.

Наш город как промышленный центр сохранил многие исторические промышленные предприятия. Некоторые из них давно прекратили свою деятельность, но оставили после себя заброшенные заводские территории. Многие из них имеют историческуюценность. Этот вопрос привлек наше внимание к необходимости серьезно подойти к возможности их реконструкции и интеграции в общую инфраструктуру Баку.

Цель исследования - рассмотрены проблемы современного состояния бульвара для дальнейшей разработки принципов его ревитализации. Прежде всего дальнейшее изучение и анализ потенциала преобразования бульвара Баку в контексте их исторических, культурных и экологических особенностей. На основе собранных исторических данных и анализа опыта других городов можно разработать конкретные рекомендации и стратегии, чтобы сделать наш город не только привлекательным для жителей и туристов, но и устойчивым для будущих поколений. При реализации проектов реконструкции в Баку важно учитывать и сохранять

уникальные архитектурные и культурные особенности города, такие как азербайджанская архитектура и национальные традиции, чтобы сохранить его наследие для будущих поколений.

En kəsiyin konturunda aşağıdakı sərhəd şərti təmin olunmalıdır.

$$\frac{\partial^4\varphi}{\partial x}dy + \frac{\partial\varphi}{\partial y}dx = xdx + ydy$$

$\varphi(x,y)$ harmonik funksiyası məlum olduqda toxunan gərginliklər

$$\begin{aligned}\tau_x &= G\gamma(\frac{\partial\varphi}{\partial x} - y)\\ \tau_y &= G\gamma(\frac{\partial\varphi}{\partial y} + x)\end{aligned} \quad (2)$$

burucu moment isə

$$M_{br} = G\gamma\int_{(A)}\int (x^2 + y^2 + x\frac{\partial\varphi}{\partial y} - y\frac{\partial\varphi}{\partial x})dxdy = C\gamma \quad (3)$$

düsturu ilə hesablanır.

G- en kəsiyin ölçülərindən, formasından, sürüşmədə elastiklik modulundan asılı olan burulmada sərtlikdir.

γ - valın vahid uzunuluğuna düşən burulma bucağıdır.

Məsələ (Musxelişvili, 1966) və məktəbin təklif etdiyi kompleks dəyişən və konform-inikas funksiyalarının köməyi ilə həll olunur. φ*(x,y)* funksiyasını, *x+iy* kompleks dəyişəninin *F(z)* analitik funksiyasının həqiqi hissəsi kimi qəbul olunur.

$F(z) = \varphi(x,y) + \psi(x,y)$

$\psi(x,y)$– $\varphi(x,y)$ funksiyasının qoşmasıdır. $\psi(x,y)$= *x-iy.*

$\varphi(x,y)$ və $\psi(x,y)$ funksiyaları Koşi-Riman şərtlərini ödəyir:

$$\frac{\partial\varphi}{\partial x} = \frac{\partial\psi}{\partial y};\ \frac{\partial\varphi}{\partial y} = \frac{\partial\psi}{\partial x} \quad (4)$$

onda sərhəd şərti aşağıdaki şəkildə düşmüş olur

$$\psi = \frac{x^2 + y^2}{2} + C_1 = \frac{1}{2}2\cdot\overline{2}$$

Konform-inikas edici funksiyasını aşağıdakı şəkildə qəbul olunur

$$2 = \omega(\xi) = a(\frac{k}{a}\xi - \xi^4) \quad (5)$$

Hiposikolid en kəsiyin qütb ətalət momenti

$$I_p = \frac{\pi D^4}{32} - \frac{\pi D^2 a^2}{4} - \pi a^4$$

$$C_0 = -\frac{3}{4}\pi a^2 D^2$$

olduğundan, burulmada sərtlik üçün

$$CC = G\left(I_p + C_0\right) = G\left[\frac{\pi D^4}{32} - \frac{\pi D^2 a^2}{4} - \pi a^4 - \frac{3}{4}\pi a^2 D^2\right] = G\left[\frac{\pi D^4}{32} - \pi a^2 D^2 \pi a^4\right]$$

burulma bucağı üçün isə

$$\gamma_z = \frac{M_{br}}{C}z = \frac{M_{br}}{G[\frac{\pi D^4}{32} - \pi a^2 D^4 - \pi a^4]}$$

N.İ.Musxelişviliyə görə /1/

$\tau_p - i\tau_\partial = \frac{G\gamma t}{\rho|\omega'(t)|}\{f'(t) - t\overline{\omega}(\overline{t})\omega'(t)\}$ (6)

Bu ifadədəki kəmiyyətləri hesablayıb həqiqi və xəyali hissələri ayırmaqla toxunan gərginlik toplananları üçün aşağıdakı ifadələr alınır

$\tau_p = \frac{3Gka\rho^2\sin 3\theta(1-\rho^2)}{\sqrt{k^2+16a^2\rho^6-8ka\rho^3\cos 3\theta}}$ (7)

$\tau_\theta = \frac{-G\gamma[\cos 3\theta ka\rho^2(5\rho^2-3)-k^2\rho-4a^2\rho^7]}{\sqrt{k^2+16a^2\rho^6-8ka\rho^3\cos 3\theta}}$ (8)

Gərginliklərin ən böyük qiyməti kontur nöqtələrində ρ=1 alınır.

$\tau_\rho = 0$

$\tau_\theta = \frac{-G\gamma(2ka\cos 3\theta-k^2-4a^2)}{\sqrt{k^2+16a^2-8ka\cos 3\theta}}$ (9)

Kompleks dəyişən funksiyalarla transversal-izotrop cisimlərdə GDH halı tədqiq olunmuşdur.

Müstəvidə sona yetən bir-birinə paralel olan kəsilməz lifələrə malik olan, sonsuz yarımmüstəvidə GDH-nı ϕ(z) və ψ(z) kompleks potensiallarından istifadə etməklə Kolosov-Musxelişvili düsturu /1/ ilə təyin etmək olar

$$\begin{gathered}\sigma_x+\sigma_y=2[\phi(z)+\overline{\phi(z)}]\\ \sigma_y-i\tau_{xy}=\phi(z)+\overline{\phi(z)}+z\overline{\phi'(z)}+\overline{\psi(z)};\\ 2\mu[\frac{\partial u}{\partial x}+i\frac{\partial\theta}{\partial x}]=\chi\phi(z)-\overline{\phi(z)}-z\overline{\phi'(z)}-\overline{\psi(z)}\\ \sigma_x=\nu_n(\sigma_x+\sigma_y)\end{gathered}\qquad(10)$$

ϕ(z) və ψ(z), z=x+iy, *İm z>0*, yarımmüstəvidə qolomorf funksiyalardır; θ, u — y və x oxları istiqamətində yerdəyişmələrdir; $\mu=\frac{E}{2(1+\nu)}$ - sürüşmədə elastic moduldur; $\chi=1+\frac{E}{1+\nu}(\frac{1+\nu}{E}-\frac{2\nu_n^2}{E_n})$; $i^2=-1$ −xəyali vahiddir; $\sigma_x$, $\sigma_y 0$ $\sigma_z$ − gərginlik toplananlarıdır. χ - əmsalı baxılan mühitin halını xarakterizə edir. Məsələn tam izotrop mühitlər üçün $E_n=E$; $\nu_n=\nu$, $\chi=3-4\nu$, izotrop və transversal-izotrop cisimlərin müstəvi gərgin halı üçün və $E_n$ >>E (həddindən artıq sərt lifli kompositlər üçün) şərtində $\chi=\frac{3-4\nu}{1+\nu}$.

N.İ.Musxelişvili /l/ üsulu ilə (10 düsturlarını çevirərək GDH-nı bir ϕ(z) funksiyasının köməyi ilə tədqiq olunur.

$$\begin{gathered}\sigma_x+\sigma_y=2[\phi(z)+\phi(\overline{z})];\\ \sigma_y-i\tau_{xy}=\phi(z)+\phi(\overline{z})+(z-\overline{z})\phi'(\overline{z});\\ 2\mu\frac{\partial}{\partial x}(u+i\theta)=\chi\phi(z)+\phi'(\overline{z})-(z-\overline{z})\phi'(\overline{z})\end{gathered}\qquad(11)$$

İ.A.Prusova görə /2/ mühitin sərhəddində xarici gərginlik toplananları f(x) =$\sigma_y-i\tau_{xy}$ məlum olduqda (l l) şərti üçün

$\phi^-(t)+\phi^+(t)=f(t)$ alınır.

$\phi^-(t)$və $\phi^+(t)$ yarımmüstəvilərinin aşağı $s^-$ *(y < 0)* tərəflərində ϕ(z) funksiyasının həddi qiymətləridir. ϕ(z) funksiyası aşağıdakı şəkildədir $\phi(z)=-\frac{1}{2\pi i}\int_L\frac{f(\tau)}{\tau-2}d\tau+M(z)+N(z)$ (12)

z=x+iy və ẑ=x-iy nöqtələrində ϕ(z) funksiyası z→$z_0$ olduqda

$$\left.\begin{gathered}\phi(z)=M(z)+\phi_*^-(z)\\ \phi(z)=N(z)+\phi_*^+(z)\end{gathered}\right\}(13)$$

(13) ifadələrində

$$M(z)=-\frac{P_0}{z-z_0};N(z)=-\frac{\chi P_0}{z-z_0}+\frac{(z-\overline{z}_0)\overline{P}_0-iM_0'}{(z-\overline{z}_0)^2};$$
$$P_0=\frac{X_0+iY_0}{2\pi(1+\chi)};M_0'=\frac{M_0}{2\pi}$$

$X_0,Y_0$ və $M_0-(x_0,y_0)$ nöqtəsinə tətbiq olunmuş topa qüvvələr və momentdir; $\phi_*(z)$—z və ž nöqtələrində qolomorf funksiyadır.

**NƏTICƏ**

Təklif olunan üsulla transversal-izotrop yarımmüstəvi və zolaqda /3/ və elastiki əsasla birləşdirilən zolaqda /4/ GDH tədqiq olunmuşdur.

**ƏDƏBIYYAT SIYAHISI**

1. Мусхелишвили Н.И. Некоторые основные задачи математической теории упругости. М., Наука, 1966. - 7007с.
2. Прусов И.А. Изв.АН СССР. Сер. Механика и машиностроение, 1964, Т.102, №4, с.102-104.
3. Əhmədov A.D., Əliyeva G.M. Transversal-izotrop yarımmüstəvi və zolaqda gərginlik-deformasiya vəziyyəti. Tətbiqi mexanika -1 , Bakı, 2004, s.18-23.
4. Əhmədov A.D., Qasımov P.Q. Elastiki əsasla birləşdirilən zolağın gərginlik-deformasiya halı barəsində, Tətbiqi mexanika - 2, Bak1, 2004, s.28-31.
5. Прусов И.А. Некоторые задач

# MÜASİR KƏND YAŞAYIŞ MƏSKƏNLƏRİNİN FORMALAŞMASINDA MEMARLIĞIN ƏHƏMİYYƏTİ.
# THE IMPORTANCE OF ARCHITECTURE IN THE FORMATION OF MODERN RURAL SETTLEMENTS.

***Tələbə: Ələkbərova Türkan***
*Qrup:113A1*
*Elmi Rəhbər: dos. Ağazadə Rüfət*
*Azərbaycan Memarlıq və İnşaat Universiteti.*
*Fakultə: Memarlıq.*
*hacizade.t@bk.ru*
*Bakı.Azərbaycan*

**Açar sözlər:** *Kənd,memarlıq mühiti,məskən,yaşayış məntəqələri, həyət evleri,dizayn.*
**Keywords:** *Village, architectural environment, residence, residential areas, courtyard houses, design.*

**Abstract**

Architecture has a great importance in the formation of modern rural settlements. In the past, rural architecture was mainly functional, aimed at solving the daily needs of the inhabitants. However, with the development of technology and social progress, the architecture of rural settlements began to play an important role in attracting young families and developing tourism.

Modern rural settlements should not only be comfortable to live in, but also attractive to live in. They should offer a unique architectural environment that encourages the development of a comfortable and rich life. The aim of the architects is to create a harmonious combination of natural beauty and modern technology that reflects the rural identity and uniqueness of each settlement.

**Xülasə**

Müasir kənd memarlığının tərkib hissəsi həm də infrastrukturun inkişafıdır. Bura rahat yaşayış komplekslərinin, sosial-mədəni ocaqların, məktəblərin, tibb müəssisələrinin yaradılması daxildir. Məkan və ictimai yerlərin optimal təşkili fəal və mehriban kənd mühitinin yaradılmasına kömək edir.

Ümumiyyətlə, memarlığın müasir kənd yaşayış məskənlərinin formalaşmasına böyük təsiri var. Bu, nəinki yaşayış məntəqələri üçün unikal görünüş yaradır, həm də sakinlərin həyat keyfiyyətinə təsir göstərir. Düzgün dizayn edilmiş binalar və infrastruktur kəndlərin inkişafına kömək edə, investisiya cəlb edə, turizmi inkişaf etdirə və regionun iqtisadiyyatını canlandıra bilər. Buna görə də kənd yaşayış məntəqələrini inkişaf etdirərkən, həyat keyfiyyətinin yaxşılaşdırılmasına və sosial sferanın gücləndirilməsinə kömək edəcək mühitin yaradılması zamanı memarlığı unutmaq olmaz.

**Giriş.** Azərbaycanda kənd yaşayış məntəqələrinin formalaşması prosesi regionun coğrafi mövqeyi və iqlim şəraiti ilə sıx bağlıdır. Azərbaycan kəndlərinin quruluşuna milli adət-ənənələrin və mədəniyyətin də böyük təsiri var.

Azərbaycan kəndlərinin strukturuna yaşayış binaları, məktəb və poliklinika kimi ictimai binaların yerləşdiyi yaşayış sahəsi də daxildir. Kənd sakinlərinin rahat yaşayış şəraitini təmin etmək üçün çox vaxt tək və ya yaxınlıqda bir qrup evlər tikilir. Kənd yerlərinin infrastrukturunun mühüm hissəsi də müəyyən növ kənd təsərrüfatı fəaliyyətləri, məsələn, tərəvəz yetişdirilməsi və ya mal-qara yetişdirilməsi üzrə ixtisaslaşan təsərrüfatlardır.

Onu da qeyd etmək lazımdır ki, Azərbaycan kəndlərinin formalaşmasında ənənəvi mədəniyyət və sənətkarlıq mühüm rol oynayır. Yerli sənətkarlar rayonun adət-ənənələrini, tarixi irsini qoruyub saxlayaraq, ağacdan, xalçadan, keramikadan və digər materiallardan unikal məhsullar yaradırlar.

Nəhayət, Azərbaycan kəndlərinin formalaşma strukturunun mühüm cəhəti əhalinin sosial tərkibidir. Kənd yerlərinin sakinləri fermerlər, sənətkarlar, müəllimlər və tibb işçiləri kimi müxtəlif sosial qrupları təmsil edirlər. Onlar kənd təsərrüfatının inkişafına kömək edən və bu ərazilərdə həyatı yaxşılaşdıran sosial şəbəkələr və icmalar formalaşdırmaqla əməkdaşlıq edir və qarşılıqlı fəaliyyət göstərirlər.

**Azərbaycan kəndlərinin formalaşma xüsusiyyətləri.** Azərbaycan kəndlərinin formalaşma strukturunu coğrafi-iqlim şəraiti, milli adət-ənənələr, torpaqdan istifadənin kollektiv xarakteri, əhalinin sosial tərkibi və sənətkarlıq məhsulları müəyyən edir. Kənd təsərrüfatının inkişafı və milli mədəni irsin qorunub saxlanması üçün əsasdır. Lakin son illərdə insanların rahat yaşaması üçün şəraitin olmaması, həyat tərzinin aşağı səviyyədə olması, gənclərin şəhərlərə köçməsi, kənd yaşayış məntəqələrinə müasir yanaşmanın zəruriyyətini önə sürür. Bu məqalədə kənd yaşayış məntəqələrində rahat mühitin və həyat tərzinin yaxşılaşdırılmasında memarlığın rolunu araşdıracağıq.

Azərbaycanda kənd yerlərinin formalaşması, hələ sovet dövründə, bir sıra tədbirlərin həyata keçirildiyi dövrdən başlanmışdır. Lakin SSRİ-nin dağılmasından sonrakı illərdə kəndlər əhalinin şəhərlərə axını və həyat səviyyəsinin aşağı düşməsi problemi ilə üzləşdi.

**Azərbaycanda kənd yerlərinin müasir vəziyyəti.** Azərbaycanda kənd yerlərinin inkişafı istiqamətində bir sıra tədbirlər həyata keçirilir. Dövlət kənd təsərrüfatını fəal şəkildə dəstəkləyir və kənd sakinlərinin gəlir səviyyəsini yüksəltmək məqsədi daşıyır. Aqrar sektorun inkişafı, fermerlərin dəstəklənməsi, kənd təsərrüfatı infrastrukturunun müasirləşdirilməsi və kənd yerlərində iş yerlərinin yaradılması üçün proqramlar hazırlanıb həyata keçirilib.

Həmçinin, Azərbaycanın kənd yerləri səhiyyə, təhsil, nəqliyyat və rabitə kimi əsas xidmətlərə çıxış əldə edib. Kəndlərin elektrikləşdirilməsi və qazlaşdırılması həyata keçirilmiş, bu da yerli əhalinin həyat keyfiyyətini yaxşılaşdırmışdır.
Lakin hökumətin bütün tədbirlərinə baxmayaraq, Azərbaycanda kənd yerlərinin inkişafı problemləri aktual olaraq qalır. Bu, kifayət qədər investisiya qoyulmaması, kənd təsərrüfatı texnologiyalarının inkişaf etməməsi və təhsilin aşağı səviyyəsi ilə bağlıdır. Bu problemlərin həlli üçün kənd in iqtisadiyyatının inkişafına təkan vermək, fermerlərə dəstək vermək, müasir texnologiyalara çıxış imkanlarını təmin etmək üçün kompleks tədbirlər həyata keçirmək lazımdır.Əhalinin şəhərlərə axınının qarşısını almaq üçün kənd yerlərində təhsilin və səhiyyənin səviyyəsinin yüksəldilməsi də vacibdir.

Azərbaycan Respublikasında son 20 ildə baş verən sosial-iqtisadi dəyişiklikləri, ardınca ölkənin bazar iqtisadiyyatına keçidi kənd əhalisinin həyatında mühüm dəyişikliklər etdi.Bu proseslər ölkəmizin kənd əhalisinin yaşayış mühitinin təşkilinə təsir etməyə bilməzdi. Bu gün kəndlərin ənənəvi olaraq diqqətli qayğı və səliqəli tərtibat obyekti olduğu dünyanın inkişaf etmiş ölkələrindən fərqli olaraq, bizim kənd təsərrüfatı sahələri yüksək məhsuldar əmək və rahat həyat üçün zəif uyğunlaşdırılmış mühitdir. 21-ci əsrdə Azərbaycanda kənd evlərinin 60% -dən çoxunda ən ümumi şərait yoxdur - axar su və kanalizasiya. Burada kənd təsərrüfatı əməyinin gəlirsizliyi və yükü, pis sosial-məişət şəraiti və daha çox amil daxil olmaqla, bir sıra problemlərin kompleks nəticəsi, gənclərin kənd yerlərin tərk etməsidir ki, bu da onların inkişaf perspektivlərinin itirilməsi deməkdir. .

Kəndin daha da deqradasiyası prosesini dayandırmaq, kənd təsərrüfatını və kənd həyatını bərpa etmək üçün bir sıra elmi tədqiqat işlərinin aparılmasını əhatə edən məqsədyönlü inkişaf proqramları çərçivəsində uzunmüddətli dövlət dəstəyi tələb olunur. kənd təsərrüfatı ərazilərinin memarlıq və planlaşdırma təşkilinə prinsipial olaraq yeni yanaşmaların işlənib hazırlanması və milyonlarla soydaşımızın həyatı və fəaliyyəti üçün əlverişli yeni mühitin yaradılması zəruridir.

**Azərbaycanda kənd yerlərinin inkişaf istiqamətləri.** Şəhərsalma və kənd mühitinin memarlıq-tikinti formalaşdırılmasının demək olar ki, bütün əsasları regional planlaşdırmadan başlayaraq hər bir yaşayış binasının memarlığına qədər, strategiya, taktika, prinsip və texnikanın formalaşdırılması məqsədilə yenidən nəzərdən keçirilir. Bu şəraitdə müəllif yeni sosial-iqtisadi kənd yaşayış məntəqələrində memarlığın inkişafı konsepsiyasının işlənib hazırlanmasını ən aktual həll kimi hesab edir. Tarixi materialın təhlili, kənd quruculuğunun ənənələri və müasir təcrübələrinin öyrənilməsi əsasında işdə kənd memarlığının inkişafının əsas perspektivli istiqamətləri müəyyən edilmişdir. Gözlənilir ki, regional memarlığın müəyyən spesifik məsələlərinin daha diqqətli təfərrüatları ilə bağlı gələcək tədqiqatlar davam etdiriləcək. Problemin qoyulmasına və gələcək tədqiqatlar üçün strategiyanın işlənib hazırlanmasına birinci, ən ümumi yanaşma, fikrimizcə, regional planlaşdırma, kənd məskunlaşması, kənd yaşayış məntəqələrinin memarlıq-planlaşdırma təşkilinin əsasları, habelə gələcək tədqiqat işlərinin istiqamətlərini aşkar edəcəkdir. Müasir həyatın tələblərinin dinamikasını və ölkəmizin regional xüsusiyyətlərini nəzərə alaraq yaşayış məskənləri salınacaqdır.

**Nəticə.** Bu vəziyyətdən çıxış yolu isə tərk edilmiş torpaq sahələrində müxtəlif növ işlərin təşkilində görünür. Bu, kənd turizminin, aqroturizmin inkişafı, xalq sənətkarlığının dirçəldilməsi, kənd

yerlərində kənd təsərrüfatı məhsullarının emalı və istehlak mallarının istehsalı müəssisələrinin yaradılması, ekoloji təmiz məhsulların yetişdirilməsi və s.

Kənd yerlərində inkişafın əsasını yeni qəsəbələrin təbii, ərazi və sosial potensialı təşkil etməlidir. Alternativ fəaliyyətin inkişafı çoxfunksiyalı kənd təsərrüfatı istehsalının yaradılması ilə yanaşı, kənd yerlərinin iqtisadi yüksəlişi üçün şərtlərdən birinə çevrilməlidir. Dövlət aqrar siyasəti kənd əhalisinin tam məşğulluğuna və onların həyat səviyyəsinin yüksəldilməsinə yönəldilməlidir. Kənd əhalisinin məşğulluğunun genişləndirilməsi və kənd yerlərinin inkişafı üçün ən əlverişli sahələrdən biri turizimdir.

Kənd məskənlərinin inkişafında əhalinin məşğulluğunun təmin edilməsi ilə yanaşı, kənd tməskənlərində bir sıra problemləri həll edəcək , o cümlədən:

-kiçik yaşayış məntəqələrində, kənd həyatının qorunması;
-kənd əhalisinin həyat şəraitinin yaxşılaşdırılması;
-kənd sakinlərinin gəlirlərinin artırılması;
-gənc ailələr üçün iş yerlərinin yaradılması;
-kənd yerlərində gənclərin konsolidasiyası;
- ənənəvi dəyərlərin və sağlam həyat tərzinin dirçəldilməsi və təbliği;
-xalq sənətkarlığının inkişafı;
-ətraf mühitin mühafizəsinə töhfə verən təbii obyektlərdən tənzimlənən istifadə;
-ərazinin mədəni və tarixi irsinin qorunması.
- kəndin qorunub saxlanılması və inkişafı və sakinlərin kəndə qayıtması;
- yeni iqtisadi şəraitdə bölgələrin davamlı inkişafı.

Həll olunan vəzifələrin əhəmiyyəti kənd mühitinin və rayonun inkişaf etdirilməsi probleminin prioritetini müəyyən edir və onu ölkə əhəmiyyətli bir sıra sosial-iqtisadi problemlər sırasına qoyur.

**Ədəbiyyat siyahısı**

1. Актуальные проблемы реконструкции села в новых экономических условиях: Сб. научный тр. М.: ЦНИИЭПграждансельстрой, 1992. - 106 с.

2. Альбаут В.М. Особенности региональной системы расселения // Архитектура и градостроительство. - Часть 4. Новосибирск: НИСИ, 1993. - С. 26-27.

3. Алексеев А. Л. Совершенствование организации сельского строительства (исследование, разработка и внедрение): Автореф. дисс. .Доктор технических наук. наук. М.: МИСС, 1987. – 52 с.

4. Алексеев С.Ю., Миронов Е.И. Структура площади жилого дома. Эволюция идей. Ростов-на-Дону: Издательство РГАИ, 1995. - 57 с.

5. Антипов Г.М., Гаджи-Исмайлов Ф.Б. Как стать фермером. М.: МП ИМИДЖ, 1992. – 845 с.

6. Агропромышленные комплексы. - М.: Статистика, 1975. - 280 с.

7. Мышьяк. Историческая справка о Белопесоцком Троицком монастыре. Книга П. - М., 1870. - 20 с.

8. Архитектура и градостроительство в условиях реализации жилищной программы: Сб. научный тр. Ростов-на-Дону, 1998. - 170 с.

# OSMANLI DÖVRÜNÜN CAMİ STRUKTURLARINDA MEMARLIQ ELEMENTLƏRİNİN MÜQAYİSƏLİ TƏHLİLİ

**Nərgiz Davudzadə Vüqar qızı**
Bakı Mühəndislik Universiteti
"Memarlıq və İnşaat" fakültəsi, "Bina və qurğuların memarlığı" ixtisaslaşması
*nargizdavudzada@gmail.com*
Xırdalan, Azərbaycan

**XÜLASƏ**

Osmanlı dövləti tarixin müxtəlif dövrlərində memarlıq sahəsində önəmli dərəcədə inkişaf yolu qət edərək çox sayıda müxtəlif strukturlar inşa etdirmişdir. Bu strukturlara cami və cami kompleksləri kimi bir çox tikililər də daxildir.

Osmanlı dövlətinin "Qızıl Çağı"nı yaşadığı XVI-XVII ərslərdə inşa edilən camilər bir-birlərindən işləmə texnikasına, tikinti materiallarının fərqliliyinə, minarələrin sayına, minarələrdə olan eyvanların sayına, mehrab və minbəri, yerləşgə planı, günbəzlərinin sayı və forması, kompleks şəkildə layihələndirilməsi və s. bu kimi memarlıq elementləri baxımından bir-birindən fərqlilik göstərirlər.

Bu məqalədə Osmanlı dövrünün şah əsərlərindən olan, hazırda Türkiydə Eskişehirdə yerləşən Kurşunlu Cami, Gebzedə olan Çoban Mustafa Paşa camisi, İstanbulda inşa edilmiş Süleymaniyə camisi və Sultan Ahmetcamisinin memarlıq elementlərinin müsqayisəli təhlili aparılmışdır.

Memar Təbrizli Əli, Memar Sinan, Sədəfkar Məhəmməd Ağa kimi önəmli memarların islam memarlığına qazandırdıqları bu şah əsərlərin günümüz memarlığına əhəmiyyətli dərəcədə istiqamət verdiyi görülməkdədir.

**AÇAR SÖZLƏR:** Kurşunlu Cami, Çoban Mustafa Paşa Cami, Süleymaniye Cami, Sultan Ahmed Cami.

**SUMMARY**

The Ottoman state made significant progress in the field of architecture and built many different buildings in different periods of history. These buildings include many structures such as mosque complexes.

The mosques built in the 16th-17th centuries, when the Ottoman Empire was experiencing its "Golden Age", differ from each other in terms of working techniques, differences in building materials, the number of minarets, the number of iwan in the minarets, the features of the mihrab and pulpit, the room location plan, the number and shape of domes, complex design, etc. They differ from each other in terms of such architectural elements.

In this article, a comparative analysis of the architectural elements of the masterpieces of the Ottoman period such as the ,,Kurshunlu Mosque'' in Eskishehir, ,,Chobab Mustafa Pasha Mosque'' in Gebze, ,,Süleymaniye Mosque'' and the ,,Sultan Ahmed Mosque''in Istanbul in Turkey .

It is seen that,these masterpieces brought to Islamic architecture by important architects such as Architect Tabriz Ali, Architect Sinan,Architect Sadafkar Muhammad Aga have given an important direction to today's architecture.

**KEY WORDS:** Lead Mosque, Choban Mustafa Pasha Mosque, Suleymaniye Mosque, Sultan Ahmed Mosque.

## GİRİŞ.

Cami ərəb mənşəli söz olub, "səcdə yeri" mənasını daşıyır. İslam dinində cami müsəlmanların Allaha ibadətləri üçün nəzərdə tutulmuş bir tikilidir. Camilərin tikinti materialları və dizaynı hər bir yerli müsəlman xalqının mədəniyyətinə, irsinə və resurslarına bağlıdır. Müxtəlif dövrlərdə camilər fərqli forma və üslublarda inşa edilsə də, onların hamısına xas olan və digər tikililərdən fərqləndirən bir neçə memarlıq elementləri var. Bu elementlərə günbəz, minarə, mehrab, minbər və s. daxildir. Sadalanan memarlıq elementləri demək olar ki bütün camilərdə öz əksini tapır. Təbii ki, hər zaman istisna hallar da ola bilir (şəkil 1.). Camilər Məkkə istiqamətində tikilməlidir.



Şəkil 1. Damı olmayan açıq səma altında cami. Kadırga yaylası, Türkiyə.

Eyni əsr, eyni mədəniyyətin təsiri altında tikilən camilərin hər birinin özünə xas özəllikləri var. XVI-XVII əsr, Osmanlı dövrünün qızıl çağında inşa edilmiş, öz möhtəşəmliyi ilə fərqlənən bir neçə cami nümunəsinin memarlıq təhlilini nəzərdən keçirək.

**TƏDQİQAT METODU**

Tarixi, təsviri, müqayisəli, analiz və sintez, nəzəri ümumiləşdirmə.

**Cami**

Eskişehirdə yerləşən *Kurşunlu Cami kompleksinin* girişinin üstündəki kitabədə inşa edilmə tarixi 1515 qeyd olunub (şəkil 2.). Eyni zamanda kitabədə Qanuni Süleymanın adı və onun qurucusu Mustafa Paşanın vəzirliyi də qeyd olunur. Çoban Mustafa Paşanın vəqf nizamnaməsi isə 1526-cı ilə aiddir. Kitabədə qeyd olunan tarix, ifadələr və vəqf nizamnaməsinin tarixi nəzərə alınaraq kompleksin 1515-1526-cı illər arasında tikildiyi bildirilir.[3]

Kompleksin memarının kim olduğu hələ də tam müəyyənləşdirilməyib. Memar Sinandan əvvəlki baş memar olan Təbrizli Əlinin dövründə tikilməsi və Əcəm Əliyə aid olan komplekslərə qarşılaşdırılaraq, bu kompleksin də memarının Əcəm Əli ola biləcəyi düşünülür. Bu mövzuda kitabədəki 1515 tarixindən çox Qanuni Sultan Süleymanın adı önə çəkilərək bu mövzuda şərhlər aparılıb. Eyni zamanda Memar Sinanın əsərlərinin sadalandığı "Tuhfetül-mimarın"da yalnız kompleksdəki karvansarayın adı qeyd olunur. Buradan belə bir nəticəyə gəlmək olar ki, Memar Sinan bu kompleksdə ancaq karvansarayı təmir etmiş ola bilər. Məlumdur ki, ictimai kompleks 1832-ci ildən əvvəl başa çatan təmirə məruz qalmışdır. Daha sonra, Vəqflər Baş İdarəsi tərəfindən 1955-ci ildən kompleksin müxtəlif binalarında müəyyən təmir işləri aparılmışdır (şəkil 3.). [1]

Kvadrat iki tərəfə qədər uzanmış və başlıqları müqərnəsli altı mərmər sütunun daşıdığı uclu tağ üzərində asqılı planlı və yonma daşla tikilmiş tək günbəzli caminin şimalında beş hissəli narteks var (şəkil 4.). Bu hissə cami həcmindən günbəzlərlə örtülmüşdür. Tağlar ağ və qırmızı tağ daşlarının növbəli şəkildə düzülməsi ilə əmələ gəlmişdir. Narteksin ortasındakı əsas darvaza bir qədər girintilidir və alçaq tağlıdır. Qapının üstündə kitabə yerləşdirilib.

Sonradan tikilmiş kimi görünən girişin düz qarşısındakı qadınlar üçün ibadət yeri taxtadandır. 14.9 × 14.9 m ölçüsündə olan günbəzlə örtülmüş,düzbucaqlı ibadətxana hər tərəfdən yerləşdirilmiş dörd pəncərədən işıq alsa da, tikilinin içərisi lazımi qədər işıqlı deyil. Şərq və qərb divarlarının ortasında şkaf nişi var. [1]





Şəkil 2. Kurşunlu Caminin kitabəsi. 1515-1526-cı illər. Şəkil 5. Çoban Mustafa Paşa camisinin kitabəsi. 1523-cü il.

Eskişehir, Türkiyə. Gebze, Türkiyə.

[3] TDV İslam Ansiklopedisi, Ankara 2002, cild 26, 448-450




Şəkil 3. Kurşunlu Cami. Eskişehir, Türkiyə. 1515-1526-cı illər. Şəkil 6. Çoban Mustafa Paşa Camisi. Gebze, Türkiyə. 1523-cü il.




Şəkil 4. Kurşunlu caminin planı. 1515-1526-cı illər. Şəkil 7. Çoban Mustafa Paşa camininin planı. 1523-cü il.

Eskişehir, Türkiyə. Gebze, Türkiyə.

*Çoban Mustafa Paşa* Camisinin qapısındakı ərəb yazısına görə, 1523 cü ildə inşa edilmişdir (şəkil 5.). 500 ildən çox yaşı olan Çoban Mustafa Paşa Camisinin memarları Ahmed bin Bedri və Hasan bin Toroni olduğu düşünülür. Çoban Mustafa Paşa I Səlimin qızı Hafsa Sultanın həyat yoldaşı olub, Misir valisi vəzifəsinə təyin edilmişdir. Bu səbəbdən kompleksin tikintisində material və işçilik baxımından Misir ornamentlərindən – ağ mərmər daşlar, Məmluk yazı xəttatlığı və s. istifadə olunmuşdur.

Caminin həyətinə üç qapıdan daxil olmaq olur. Həndəsi tərtibatın üstünlük təşkil etdiyi kompleksdə cami mərkəzdə yerləşir və nisbətən kiçik götürülüb. 14,5 x 14,5 metr ölçüsü olan cami yerdən 0,5 metr hündürlükdə inşa edilən bir günbəzi və bir minarəsi olan kvadrat binadır. [4]

*Süleymaniye camii* klassik Osmanlı Memarlığının ən əhəmiyyətli nümunələrindən biridir. Türkiyyənin İstanbul şəhərində yerləşən caminin tikintisi 1550-1557-ci illəri əhatə edir.

Cami Sultan Qanuni Süleymanın əmri ilə Memar Sinan tərəfindən layihələndirilib. Memar Sinan Süleymaniyə caminini layihəndirərkən təxminən min il əvvəl inşa edilən Ayasofiyadan ilhamlanmışdır. Cami kompleks şəkildə layihələndirilmişdir.




Şəkil 8. Süleymaniye Camisinin kitabəsi. 1550-1557-ci illər. Şəkil 12 . Sultan Ahmet Camisinin kitabəsi. 1609-1617-ci illər.

İstanbul, Türkiyə. İstanbul, Türkiyə.

[4] https://islamansiklopedisi.org.tr/coban-mustafa-pasa-kulliyesi




Şəkil 9. Süleymaniye Camisi. 1550-1557-ci illər. İstanbul, Türkiyə. Şəkil 13. Sultan Ahmet Camisi. 1609-1617-ci illər. İstanbul, Türkiyə.




Şəkil 10. Süleymaniye Camisinin planı. 1550-1557-ci illər. Şəkil 14. Sultan Ahmet Camisinin planı. 1609-1617-ci illər.
İstanbul, Türkiyə. İstanbul, Türkiyə.




Şəkil 11. Süleymaniye camininin planının Ayasofiyanın planı ilə müqayisəsi.

Deyilənlərə görə caminin tikintisinin ilk günündə Sultan Ahmetözü də çubuq və kürəklə işləyir, daş daşıyırdı. Bu camii 17-ci əsrdə tikilmiş digər tikililərdən fərqləndirən ən böyük cəhətlərdən biri də dövlət xəzinəsindən ayrılan vəsait hesabına inşa edilməsidir. Bundan əlavə, Türkiyənin 6 minarəli ilk camii olan ibadət yeri həm də İstanbulun ən böyük tikinti komplekslərindən biridir (şəkil 13.)

XVII əsrdə memar Məhəmməd ağa, Sultan Ahmetcamisi ilə birlikdə yeni bir yanaşma yaratmış oldu. Ölçüdə böyüklük, heybət və əzəmət anlayışı ilə camini inşa etmişdir. Çöl həyətin zəminindən hündür olaraq inşa edilmiş caminin çox, amma çox geniş bir həyətə sahibdir. Ənənəvi Osmanlı memarlığının izlərini daşıyan cami mərkəzi planlı layihələndirilmişdir. 20-ci əsrdə Ayasofyanın muzeyə çevrilməsi ilə Göy Cami İstanbulun əsas camininə çevrildi.

**Minarə**

Minarə balkon və ya açıq eyvanları olan, cami müəzzinin möminləri gündə beş vaxt namaza çağırdığı bir qüllədir. Başı dam ilə örtülən, forma baxımından kvadrat, dairəvi, altıbucaqlı, səkkizbucaqlı və hətta spiral formada olan minaralər eyvanlarının sayı, hündürlüyü, üslubu və sayı baxımından fərqli olsa da, bir çox camiləri fərqləndirən ənənəvi xüsusiyyətlərdən biri kimi hesab edilir. "Minarə" sözü ərəbcə "manar" sözündən götürülüb, alovun yandırıldığı və ya "mayak"ın olduğu yer mənasını daşıyır. Minarə İslam cami memarlığı timsalında ənənəvi və güclü bir yerə malikdir.

*Kurşunlu Camisinin* minarəsi kompleksin şimal-qərb küncündə yerləşir. Minarə camiə bitişik şəkildə layihələndirilib. Tək eyvanlı minarə dairəvi struktura malikdir. Formasına diqqət yetirsək aşağıdan yuxarıya doğru bir daralmanın olduğunu görə bilərik (şəkil 16). Minardə tikinti materialı kimi yonulmuş daş və kərpicdən istifadə olunub. Minarənin yalnız eyvanında həndəsi ornamentlər diqqətə çarpır. Özündə isə heç bir həndəsi, nəbati və xəttatlıq ornamentlərindən istifadə olunmayıb. Kurşunlu caminin minarəsinin dam örtüyü kəskin şəkildə sonlandırılıb (şəkil 15).

*Çoban Mustafa Paşa Camisinin* minarəsi də Kurşunlu Camidə olduğu kimi camiə bitişik şəkildə layihələndirilib. Tək eyvanlı minarənin təməli kvadrat strukturlu olub, bədən hissəsi isə aşağıdan yuxarıya doğru getdikcə daralan silindir formasındadır (şəkil 19). Minarə yonulmuş daş və kərpicdən tikilib. Minarədə heç bir həndəsi, nəbati və xəttatlıq ornamentlərindən istifadə olunmayıb. Kurşunlu Camidə olduğu kimi Çoban Mustafa Paşa Camisinin də minarəsinin dam örtüyü kəskin şəkildə sonlandırılıb.

*Süleymaniye Camisinin* həyətinin dörd küncündə 4 minarə var. 76 mtr uzunluğunda camiə bitişik minarələrin ikisi üç eyvanlı, 56 metr uzunluğunda camiyə bitişik iki minarələr isə iki eyvanlı olaraq inşa edilib. İki eyvanlı minarələrin xüsusi bir funksiyası yoxdu. Süleymaniye caminindəki 4 minarə İstanbulun fəthindən sonra taxta çıxan 4 sultanı, minarələrdəki 10 eyvan Qanuni Sultan Süleymanın Osmanlı İmperiyasının 10-cu sultanı olmasını təmsil edir. [5] Minarələrə diqqət yetirsək təməlinin kvadrat strukturda, bədən hissəsinin isə aşağıdan yuxarıya doğru daralan bir slindir formasında olduğunu görə bilərik (şəkil 20).

Bu minarələri bir-birindən fərqləndirən yalnız uzunluğu və eyvanlarının sayı deyil. Gün kompleksin üzərinə düşəndə minarələrdən biri digərlərindən parıltısı ilə seçilir. Bunun səbəbi dəqiq bilinməsə də, bəzi deyimlər mövcuddur. Deyimlərdən birinə misal olaraq "Memar Sinar caminin kompleksinin günbəzi yerləşdirməzdən öncə uzun bir müddət gözləyir ki, bünövrə özünü tutsun, cami əraziyə rahat otursun. Lakin memarın paxıllığını çəkənlər bu məsələ ilə bağlı müxtəlif xurafatlar yayırdılar. Osmanlı dövlətinin xəzinəsində belə möhtəşəm caminini tamalamaq üçün lazımi qədər büdcənin olmaması ilə bağlı xurafatlardan biri də İran şahı Təhmasibin qulağına çatır. O caminin tamamlana bilməsi üçün öz xəzinəsindən bir sandığı daş, qaş, qır-qızılla doldurараq elçi ilə birlikdə Sultan Süleymanın yanına göndərir. Bu məsələyə əsəbləşən Osmanlı sultanı elçinin gözü qarşısında göndərilən sandıqdakı daş-qaşların bir hissəsini ətrafındakı insanlara paylayır. Elçinin gətirdiyi qalan qır-qızıl və daş-qaşı toz halına gətirərək caminin inşasında istifadə olunması əmrini verir. Toz halına gətirilən xəzinə camiə bitişik solda yerləşən üç eyvanlı minarənin inşasında istifadə olunur. Bu minarə sonradan cəvahir minarəsi də adlandırılmağa başlandı.

[5] https://www.nefisyemektarifleri.com/blog/suleymaniye-camii-tarihi-ve-mimarisi-hakkinda-bilinmeyen-sirlar/





Şəkil 15. Kurşunlu Caminin minarəsi. Şəkil 16. Kurşunlu Caminin minarəsi. Şəkil 17. Kurşunlu Caminin minarəsi.

1515-1526-cı illər. Eskişehir, Türkiyə. 1515-1526-cı illər. Eskişehir, Türkiyə. 1515-1526-cı illər. Eskişehir, Türkiyə.




Şəkil 18. Çoban Mustafa Paşa Camisinin minarəsi. Şəkil 19. Çoban Mustafa Paşa Camisinin minarəsi. 1523-cü il. Gebze, Türkiyə. 1523-cü il. Gebze, Türkiyə.



Şəkil 20. Süleymaniye Camisi. 1550-1557-ci illər. İstanbul, Türkiyə.



Şəkil 21. Süleymaniye Camisinin minarəsi. 1550-1557-ci illər. İstanbul, Türkiyə.




Şəkil 22. Süleymaniye Camisinin minarələri. 1550-1557-ci illər. İstanbul, Türkiyə.

Minarələrin tikinti materialı yonulmuş daş və kərpicdir. Eyvanlar xaric olmaqla minarələrdə heç bir ornamentdən istifadə olunmayıb. Minarələrə nəzər yetirsək, eyvanlarında həndəsi ornamentləri aydın şəkildə görə bilərik (şəkil 22). Digər cami nümunələrində olduğu kimi Süleymaniyəə camininin də minarəsinin dam örtüyü kəskin şəkildə sonlandırılıb.



Şəkil 23. Sultan Ahmet Camisinin minarəsi. 1609-1617-ci illər. İstanbul, Türkiyə.

*Sultan Ahmet Camisi* 6 minarəsi ilə dövrünün çox fərqli tikililərindən biri olmuşdur. Bu qüllələrlə bağlı belə bir rəvayət var: Sultan Ahmetmemar Məhməd Ağadan böyüklüyü və əzəməti ilə seçilən, altın- qızıl minarəli bir cami inşa etməsini istəyir. Məhəmməd Ağa belə bir caminin inşası üçün lazım olan maliyyənin böyüklüyünün fərqində idi. Bu səbəbdən memar altın minarə sözünü altı minarə kimi eşitdiyini önə sürərək altı minarəli bir cami inşa etdiyini deyir. Lakin bu dəfə də Məkkədəki Kəbə camii ilə eyni qədər minarəyə sahib olduğu üçün Sultan Ahmettənqid edilir. Bunlardan sonra Sultan AhmetMəkkədəki Kəbə camininə yeddinci minarə inşa etdirir.

Altı minarə qülləsinin hər biri yivlidir və üstü nazik, konusvari qapaqla örtülmüşdür. İbadət zalının künclərində ucalan dörd minarənin hər birinin üç eyvanı, həyətin bayır künclərindəki digər iki minarənin isə iki eyvanı var (şəkil 23). Hər bir eyvan müqərnəslə oyulmuş çarxlarla dəstəklənir . Minarələr öz tarixində dəfələrlə təmir olunub. Minarələrin tikinti materialı yonulmuş daş və kərpicdir. Minarələrin eyvanlarında həndəsi motivli ornamentlərdən istifadə olunmuşdur. Digər cami nümunələrində olduğu kimi Sultan Ahmet camininin də minarəsinin dam örtüyü kəskin şəkildə sonlandırılıb (şəkil 24).




Şəkil 24. Sultan Ahmet Camisinin minarəsi. 1609-1617-ci illər. İstanbul, Türkiyə.

Şəkil 25. Sultan Ahmet Camisinin minarələri. 1609-1617-ci illər. İstanbul, Türkiyə.

**Günbəz**

Başda Yaxın Şərq camiləri olmaqla bir çox cami günbəzlərlə örtülmüşdür. Bəzi ənənələrdə günbəz cənnət günbəzini, cənnət səmasını simvollaşdırır. Günbəzin daxili hissəsi çox vaxt nəbati, həndəsi və dini yazılarla, naxışlarla yüksək səviyyədə bəzədilmiş olur. Caminin əsas günbəzi adətən binanın əsas ziyarətgahını bəzəyir. Yerləşdiyi coğrafi mövqeyi, mədəniyyətdən asılı olaraq bəzi camilərdə bir neçə günbəz ola bilər.

Caminin bütün günbəzləri çöldən qurğuşunla örtüldüyü üçün *Kurşunlu Camii* kimi məşhurlaşıb. Şəkil 27-dən də göründüyü kimi caminin böyüklü balacalı 15 günbəzi var. Bu günbəzlərdən biri caminin, beşi isə camiə bitişik narteksl̇ərin üzərini örtür. Cami kompleksinin daxilində yerləşən mədrəsə, aş evi və kompleksin daxilindəki çeşmə hər biri bir, ibtidai məktəb (sıbyan okulu) iki, qonaq evi ümumi dörd günbəz olmaqla, hər otağın üzəri tək günbəzlə örtülmüşdür.

Narteksin tağlarına diqqət yetirsək qırmızı və ağ rəngli zolaqlarla işləndiyini görə bilərik (şəkil 28). Caminin və narteksin günbəzlərinin içərisi əllə çəkilmiş nəbati ornamentlərlə bəzədilmişdir (şəkil 29). Rəng ağırlığı olaraq ən çox ağ, qırmızı, digər rənglərə nisbətən isə mavi rəng tonlarından istifadə olunub. Narteksl̇ərin sütun və başlıqlarında mərmərdən istifadə olunub.




Şəkil 26. Kurşunlu Camisinin günbəzi. 1515-1526-cı illər. Şəkil 31. Çoban Mustafa Paşa camininin günbəzi.

Eskişehir, Türkiyə. Gebze, Türkiyə. 1523-cü il.




Şəkil 27. Kurşunlu Camisinin üstdən görünüşü. Şəkil 32. Çoban Mustafa Paşa camisinin üsdən görünüşü.

1515-1526-cı illər. Eskişehir, Türkiyə. 1523-cü il. Gebze, Türkiyə.




Şəkil 28. Kurşunlu Camisinin narteksləri. 1515-1526-cı illər. Şəkil 29. Kurşunlu Camisinin narteks günbəzlərinin işləməsi.

Eskişehir, Türkiyə. 1515-1526-cı illər. Eskişehir, Türkiyə.




Şəkil 30. Kurşunlu Camisinin günbəzinin işləməsi. Şəkil 33. Çoban Mustafa Paşa Camisinin günbəzi.

1515-1526-cı illər.Eskişehir, Türkiyə. 1523-cü il. Gebze, Türkiyə.

*Çoban Mustafa Paşa* kompleksində böyüklü - kiçikli 58-ə yaxın günbəz var. Caminin və beş narteksin hər birinin üzəri bir günbəzlə örtülmüşdür. Kompleksin tərkibinə daxil olan təkcə mədrəsinin 21 günbəzi var. Bunlardan biri böyük dərs otağının, biri mühazirə salonu, on yeddisi otaqların, ikisi isə şimalda və cənubda yerləşən eyvanın payına düşür. Karvansaray, çeşmə və türbənin hər birində bir, semahanedə iki, imarət və qonaq evlərinin hər birində 8, təkkədə də 10 günbəz var. Kompleksin əsas girişini əhatə edən türbə, karvansara və caminin günbəzləri eyni ox üzərində yerləşir (şəkil 32).

Çoban Mustafa Paşa caminin günbəzi daxildən bitki motivli ornamentlərlə bəzədilmişdir. Günbəzin işləmələrində qırmızı, ağ və mavi rəng tonlarına üstünlük verilmişdir. Caminin neflərində isə oyma işçiliyindən istifadə olunmuşdur. Eyni zamanda ibadət zalının işıqlandırılması, təmiz hava axınını təmin edə bilməsi üçün günbəzdə 8 pənərə yerləşdirilmişdir (şəkil 33).

*Süleymaniye Camisinin* əsas günbəzi cənub-şərq və şimal-qərb istiqamətində hər biri 1 yarım günbəzlə, şimal-şərq və cənub-qərb istiqamətində isə yan keçidlərdə 3 günbəzlə dəstəklənir. Caminin yan dəhlizlərində künc günbəzləri də daxil olmaqla cəmi beş günbəzdən ibarət bir sistem var. Şəkil 35-dən göründüyü kimi yan keçidlərin uclarında künc günbəzləri vardır.

Künc günbəzlərinin kənarlarında dayaqlar vardır. İki dayaq arasında 3 yan nefli günbəz var. Süleymaniye camininin iki yan dəhlizinin hər birində 5 günbəz var (şəkil 34). Bu günbəzlər biri böyük, biri kiçik a-b-a-b-a ritmində düzülüb. Yan keçidlərdəki 5 günbəzdən yalnız 2-si qoşa divarlıdır. Bununla belə, bir çox mənbələrdə yan nefli günbəzlərin hamısının qoşa divarlı olduğu təsvir edilmişdir [6]. Memar Sinan camii işıqlandırılması zamanı yanan kandillərin hislərinin caminin havasını ağırlaşdırmaması üçün qoşadivarlı günbəzlərin layihələndirimişdir. Caminin işıqlandırılması zamanı yanan kandillərin hisləri qoşadivarlı günbəzlərdə toplanır, daha sonra bu toplanılan hisdən mürəkkəb əldə edilirdi. İbadət zalını həşəratlar və hörümçək torlarından qorumaq üçün günbəzlərdən dəvəquşu yumurtası asırdı.







Şəkil 34. Süleymaniye Camisinin üstdən görünüşü. Şəkil 35. Süleymaniye camininin üstdən görünüşü.

1550-1557-ci illər. İstanbul, Türkiyə. 1550-1557-ci illər. İstanbul, Türkiyə.



Şəkil 36. Süleymaniye Camininin əsas günbəzinin ön görünüşü. İstanbul, Türkiyə. 1550-1557-ci illər.

Əsas günbəz dörd fil ayağı üzərində durur, günbəz tağları dörd böyük qranit sütunla dəstəklənir. 32 pəncərəli günbəzin diametri 27,25 metr, yerdən hündürlüyü isə 53 metr-dir. Səsin əks-sədasını gücləndirmək üçün günbəzin içərisinə və künclərinə yerləşdirilmiş, ağızı içəridən açıq olmaqla,hündürlüyü 50 sm olan 64 həssas akustika yaradan kub var (şəkil 37).

Günbəzi çevrələyən tağların kənarı lentvari şəkildə mərməri təqlid etmək üçün qırmızı və ağ zolaqlara boyanmışdır (şəkil 37). Günbəzin təpəsindəki xəttalıq yazısı, qabarıq ölçüdə işlənmiş bitki motivli ornamentlər, doğru seçilmiş rəng tonları birlikdə möhtəşəm bir harmoniya yaradır. Ağırlıq olaraq yaşıl, qızılı rəng tonlarından istifadə edilib (şəkil 38).

[6] Süleymaniye Camisi'nin Çift Cidarlı Kubbeleri ve Bu Konudaki Yayınlara Eleştirel Bir Bakış, MEHMET BERKSAN, 28 Mayıs 2021

*Sultan Ahmet Camisinin* günbəzləri caminin günbəzinin dörd küncündə yerləşən və kənardan görünən dairəvi qüllələrdir. Bu qüllələr caminin dörd minarəsi ilə ahəngdar şəkildə dizayn edilmişdir. Camilər caminin xarici görünüşünə estetik töhfə verir və günbəzin dəstəklənməsinə kömək edir. Onlar həm də caminin memarlığına və Osmanlı dövrünün İslam sənətinə səciyyəvi xüsusiyyət qatırlar.

Sultan Ahmet Camisinin böyük günbəzini daşımaq vəzifəsini içindəki dörd böyük fil ayağı öz üzərinə götürür. Bu fil ayaqlarının eni 5 metrdir. Mərkəzi günbəzin yerdən hündürlüyü 43 metr, eni isə 23,5 metrdir.[7] Mərkəzi günbəz 4 yarımqübbə ilə əhatə olunmuşdur. Sultan Ahmet Camisindəki bu yarım günbəzlərə daha üç yarım günbəz əlavə edilmişdir. Caminin günbəzlərindən əlavə narteksl̇ərin üzəri də 30 günbəzlə örtülmüşdür. Həyətin mərkəzində yerləşən kiçik, altıbucaqlı fəvvarənin üzəri də günbəzlə örtülmüşdür. Günbəzin daxili hissəsi mavi karandaş oymalarla rəngləndiyi üçün Göy Cami kimi də tanınır.



Şəkil 37. Süleymaniye camininin günbəzinin interyer görüntüsü. İstanbul, Türkiyə. 1550-1557-ci illər.



Şəkil 38. Süleymaniye camininin günbəzinin təpəsindəki xəttatlıq əl işi. İstanbul, Türkiyə. 1550-1557-ci illər.



Şəkil 39. Sultan Ahmet Camisinin günbəzi. 1609-1617-ci illər. İstanbul, Türkiyə.



Şəkil 40. Sultan Ahmet camisinin üstdən görünüşü. 1609-1617-ci illər. İstanbul, Türkiyə.



Şəkil 41. Sultan Ahmet Camisinin günbəzinin interyer görüntüsü. 1609-1617-ci illər. İstanbu, Türkiyə.

[7] https://islamansiklopedisi.org.tr/sultan-ahmed-camii-ve-kulliyesi

Günbəz və tavan bəzəkləri, 50 fərqli lalə naxışlı 20 mindən çox kiramit və bənzərsiz akustikası ilə Sultan Ahmet Camisi Osmanlı İmperatorluğu dövrünün qüsursuz memarlıq anlayışına, sənətinə və estetikasına sahibdir.[8] Din və əqidəsindən asılı olmayaraq hər bir insanın burada rahatlıq, huzur tapa biləcəyi atmosferə sahibdir. Günbəzin interyeri nəbati motivli ornamentlər və xəttatlıq yazıları ilə bəzədilmişdir. Caminin içindəki pəncərə şüşələri xüsusi olaraq Venesiyada istehsal olunub.1

**İbadət zalı**

Caminin ibadətxanası "müsəllə" (namaz yeri) adlanır. İbadət zalında heç bir mebel yerləşdirilmir möminlər yerdə namaz qılır və orada oturub namazı səbirsizliklə gözləyirlər. Yaşlıların və hərəkət qabiliyyəti məhdud olanların ehtiyacları üçün adətən zalın sonunda stul və ya skamyalar olur. Divarlar boyunca və ya sütunlarda, bir qayda olaraq, dini kitablar və Quran nüsxələri üçün kitabxanalar var. Həmçinin, zal geniş bir açıq yerdir.



a. b. c.

Şəkil 42. Kurşunlu Camisinin interyerindən görüntülər. 1515-1526-cı illər. Eskişehir, Türkiyə.

*Kurşunlu Camisinin* ibadət zalında heç bir mebel yerləşdirilməyib. İbadət zalı başdan-başa xalça ilə döşənib. Caminin divarları qızrmızı, yaşıl, göy rəng ağırlıqlı bitki motivli əl işi ornamentlərlə bəzədilmişdir (şəkil 42 a). Bu motivlər yalnız ibadət zalında deyil, narteks və pəncərələrin ətrafı boyunca da davam edir. Camidəki pəncərələr iki fərqli forma və hündürlükdə layihələndirilib. Yerdən hündürlüyü çox da yüksək olmayan taxta çərçivəli pəncərələr düzbucaqlı formada olub, ətrafı çox da qalın olmayan mərmər daşlarla çərçivələnmişdir. Nisbətən Yuxarıda yerləşdirilən pəncərələr isə ölçü baxımdan kiçik olub, tağvari formada layihələndirilib (şəkil 42 b). Müqərnəs tağlı mehrabın künclərinin üstündə Mövləvi təriqətinə aid başlıqlara yer verilmişdir. İbadət zalının əsas ışıq mənbəyi divarlar boyunca yerləşdirilən pəncərələr və mərkəzi günbəzdən asılmış böyük aydınlatmadır (şəkil 42 c) .

Caminin içəri hissəsi dörd tərəfdən divarların üçdə birinə qədər rəngli düzbucaqlı mərmər plitələrlə örtülmüşdür. Divarlar qarşılıqlı olaraq bir-biri ilə eyni forma və rəngə malikdir. Burada da bəzəklər yuxarıdan qalın həndəsi haşiyə ilə haşiyələnir və ortada çiçəkli kufi yazıları olan bir kəmərlə ayrılır. Pəncərə açılışlarındakı döşəmələr də həndəsi olaraq rəngli daşlarla bəzədilib. Caminin planına diqqət yetirsək Kurşunlu Cami ilə necə də bənzərlik təşkil etdiyi müşahidə edə bilərik.



a. b.

[8] https://benlerotel.com/tr/sultan-ahmet-camii-174



c. d.

Şəkil 43. Mustafa Çoban Paşa Camisinin interyerindən görüntülər. 1523-cü il. Gebze, Türkiyə.

*Çoban Mustafa Paşa Camisinin* interyerində ən çox mavi, qırmızı tonlarından istifadə olunmuşdur. İnteryerində bitki motivli ornamentlərdən istifadə olunmuşdur. Mehrabın hər iki tərəfində də olmaqla, yan divarlarda düzbucaqlı şəkildə kəsilmiş, müxtəlif rəngli mərmər plitələrdən istifadə edilmişdir (şəkil 43 c.). Divarların künclərində sədəfə bənzər şəkildə oyma işçiliyi diqqətə çarpır (şəkil 43 b.). Eyni zamanda caminin divarlarında Kurşunlu camidə də olduğu kimi Mövləvi təriqətinə aid başlıqlara yer verilmişdir.

İbadət zalının girişinin sağında, şimal-qərb küncündə yerləşən müəzzin qaleriyası Bursa tağları ilə bir-birinə bağlanmış üç mərmər sütun üzərində tikilmişdir. Döşəməsi müqərnəs mərmər tirləri və həndəsi tərkibli mərmər məhəccər şəbəkəsi ilə əhatə olunmuşdur. Taxta tavan orijinal əl ilə çəkilmiş tikmələrlə bəzədilib (şəkil 43 d.).

Çoban Mustafa Paşa Camisinin qapı qanadlarında himayədarın adını və tikilmə tarixini bildirən iki sətirli lülətaşı naxışlı yazı vardır. Səkkiz aşağı pəncərənin fil sümüyü və sədəflə bəzədilmiş qanadları da aşağı və yuxarıda yazılarla, ortada həndəsi kompozisiyalarla bəzədilmişdir. Günbəzdə, aşağı pəncərələrin tavan hissələrində və müəzzin qalereyasında əl işi bəzəmələri, qiblə divarı ilə yan divarlardakı iti tağlı orta pəncərələrdə və üstlərində yerləşən dairəvi pəncərələrdə "rəvzen-i menkuş"lar vardır. İbadət zalının əsas işıq mənbəyi divarlar boyunca yerləşdirilən pəncərələr, mərkəzi günbəzdən asılmış bir böyük, bir neçə kiçik aydınlatmadır (şəkil 43 b.).



a.



b. c.

Şəkil 45. Süleymaniye caminin interyerindən görüntülər. 1550-1557-ci illər. İstanbul, Türkiyə.

*Süleymaniye Camisinin* müəzzin qalereyasının sağ tərəfində şəbəkələrlə əhatə olunmuş hissə, 1918-ci ilə qədər kitabxana kimi istifadə edilmiş; mövcud kitablar eyni tarixdə Süleymaniye mədrəsələrində yaradılmış Ümumi Kitabxanaya təhvil verilmişdir. Beş qapısı olan caminin qarşısındakı mehrabın üstündə gözəl rəngli pəncərələr var. Bu pəncərələr dövrün tanınmış ustadı olan İbrahim Ustanın əsəridir.

Caminin içində dörd çox qiymətli iri qranit sütun var. Bunlardan biri İsgəndəriyyədən, digəri Baalbek'dən xüsusi gəmilərlə, biri İstanbuldakı Kıztaşıdan, digəri isə Saray-ı Əmirədən camiə gətirilib və hazırlanmış yerlərə qoyulmuşdur. Hər birinin hündürlüyü 9,02 metr, diametri 1,14 metr, çəkisi 40-50 ton olan bu dörd sütunu Memar Sinan Dörd Xəlifəyə bənzədirdi. Caminin zəmini mərmərlərlə döşənmiş və 28 günbəzli eyvanlarla əhatə olunmuş üç qapılı geniş daxili həyəti var. Qeyd olunan günbəz tağları 12-si qranit, 10-u mərmər və ikisi porfir mərmər sütun olmaqla 24 sütun üzərində qurulmuşdur. [9]

Camidəki yazılar dövrünün məşhur xəttat Əhməd Karahisarinin və tələbəsi Həsən Çələbinin əsəridir. Keçən əsrdə Qazasker Mustafa Əfəndi də bəzi yazılar əlavə etmişdir. Yazıların bir neçəsi istisna olmaqla, hamısının mətni müqəddəs Qurani-Kərimin ayələrindən götürülüb və ustalıqla işlənib.

*Sultan Ahmet Camisinin* ibadət zalı 64x72 metr ölçüsündədir. Caminin içərisi 20.000-dən çox əl işi İznik üslublu keramika ilə örtülmüşdür. Bu keramika məmulatları arasında əllidən çox müxtəlif lalə motivləri var. Bu motivlərin həm caminin interyerini rəngləndirir və estetik baxımdan xoş aura yaradır. Sultan Ahmetn camisinin içərisində müqəddəs Qurani Kərimdən çoxlu ayələri və bəzi kitabələr var. Bu yazıları ən yaxşı xəttat sayılan Seyyid Qasım Qubar yazıb. Caminin döşəməsi ianə hesabına təmin edilən və köhnəldikcə dəyişdirilən xalçalarla örtülmüşdür. Göy Camidə ümumilikdə 10.000 nəfərə qədər müsəlman ibadət edə bilər. Camidə 200-dən çox pəncərə var və bu pəncərələr təbii işığın daxil olmasına şərait yaradır və camidə parlaq atmosfer yaradır.[10] Mehrabın yerləşdiyi divarda vitrajlı pəncərələrdən istifadə olunmuşdur. Pəncərələrdən əlavə olaraq interyerin işıqlandırılmasında böyük ölçülü aydınlatmalardan istifadə olunşmuşdur.



a. b.

Şəkil 46. Sultan Ahmet Camisinin interyerindən görüntülər. 1609-1617-ci illər. İstanbul, Türkiyə.

**Mehrab**

Qiblənin istiqamətini göstərən divardakı boşluqdur (girintidir). Bu girinti kiçik və yarımdairəvi ola bilər və ya əhəmiyyətli dərəcədə irəli çıxa bilər. Adətən mehrabı əyani şəkildə vurğulamaq üçün mozaik plitələr və ya xəttatlıq yazıları ilə bəzədilir. Bəzən də mehrabda imam üçün minbər qoyulur.

*Kurşunlu Camidə* tağa bənzəyən kantvari nazik qabartma mehrabın girintili hissəsi ilə divar arasında çəpər rolu oynayır. Bu çəpərin xaricində ağırlığı yaşıl rəngə verilmiş bitki motivli ornamentlər işlənmişdir. Bu ornamentlədən sonra düzbucaqlı kantvari nazik qabartmadan istifadə olunmuş və bu qabartma da daha çox qırmızı və göy rəng tonlarının olduğu bitki motivli ornamentlə çevrələnmişdir. Tağvari çəpərin daxilində isə divardan içəriyə doğru bir girinti verilmiş, bu girinti kiçik və çox sadə, boyayla mərmər effekti verilmiş bir stalaktit növü ilə taclandırılmışdır (şəkil 47).

[9] http://www.fatih.gov.tr/suleymaniye-camii
[10] https://tr.wikipedia.org/wiki/Sultanahmet_Camii




Şəkil 47 . Kurşunlu Camisinin mehrabı. 1515-1526-cı illər. Şəkil 48 . Çoban Mustafa Paşa Camisinin mehrabı. 1523-cü il.
Eskişehir, Türkiyə. Gebze,Türkiyə.

*Mustafa Çoban Paşa Camisinin* mehrabı stalaktidlərlə bəzədilmişdir. Şəkildən də aydın göründüyü kimi mehrabda qızılı rəngə, üstünlük verilmiş, stalaktitlərin sağ və solunda bitki motivli ornametlərin üzərində bir-birinin daxilində yerləşən, sərhədləri qızılı rənglə ayrılmış dairələrin içərisində yazılar qeyd olunmuşdur. Mehrabın üzərində arxa fonu tünd yaşıl rəngli olub, üzəri qızılı rəngli hərflərlə Ali İmran surəsinin 39-cu ayəsindən bir hissə qeyd olunmuş plitə yerləşir. Kufi yazılı zolaqlarla üfüqi istiqamətdə ayrılan hissə üstdən nəbati ornamentlərlə haşiyəyə alınmışdır. Haşiyə iki rəngdə rumi və stilizə edilmiş palmetlərin növbələşməsi ilə yaradılmışdır. Kufi yazısı ağ mərmərin içini həkk edərək onun içini qara pasta ilə doldurараq yaradılmışdır. Yazı kəmərinin altında şaquli olaraq yerləşdirilmiş beş düzbucaqlı daş plitə ağ mərmərdə təbii daşlardan hazırlanmış zolaqlarla haşiyələnmişdir (şəkil 48).




Şəkil 49. Süleymaniye Camisinin mehrabı. 1550-1557-ci illər. Şəkil 50. Sultan Ahmet Camisinin mehrabı. 1609-1617-ci illər.
İstanbul, Türkiyə. İstanbul, Türkiyə.

*Süleymaniye Camisi* bəzəmələr baxımından sadə bir tikilidir. Caminin mehrabının hər iki tərəfinin aşağı hissəsində sadə pəncərələr layihələndirilmişdir. Bu pəncərələrlə eyni ox üzərində yuxarıda iti tağvari şəkildə yerləşən pəncərələr vitrajla bəzədilmişdir. Mərmərdən inşa edilmiş mehrabda stalaktitlərlə taclandırılıb. Rəng tonları olaraq isə mavi, tünd göy və qızılı rənglərdən istifadə olunmuşdur.

Mehrab divarının sağında və solunda iki dairəvi çini üzərində xəttatlıq şah əsəri yerləşir. Osmanlı sənətinin ən önəmli əsərlərindən biri olan bu yazılar, "Cəlül sülüs" texnikası ilə yazılmışdır. 210 santimetrlik dairələrin üzərində Fatihə surəsi iki hissəyə bölünərək yazılmışdır. Sağda yerləşən dairə içərisində birinci-dördüncü ayələr qeyd olunmuşdur. Yazının orta hissəsindəki uzununa hərflərin uzadılması ilə meydana gələn həndəsi naxış hörgülərdən ibarətdir. Bu hörgüdən bəzi ornamentlər firuzəyi rənglə boyanaraq həndəsi naxışdan seçilmişdir. Tünd mavi rəng üzərinə ağ hərflərlə yazılan əsər IX əsrin çini sənətinin zirvəsi olaraq qəbul edilir. Solda yerləşən dairənin içində isə beşinci-yeddinci ayələr yer alır.

Süleymaniye Camisinində, mehrabın üzərində cəlil süs yazısı ilə 115x250 santimetr ölçüsündə bir plitə üzərində Ali İmran surəsinin 37-ci ayəsindən bir hissə qeyd olunmuşdur. [11] Tünd yaşıl rəng plitə üzərində yazılar qızılı rənglə işlənmişdir (şəkil 49).

Применение «зеленых» технологий в строительстве – это эффективный способ использования ресурсов, способный обеспечить энергоэффективность, сокращение отходов и устойчивое развитие. Сегодня существует широкий спектр возобновляемых строительных технологий, которые могут напрямую влиять на высокие эксплуатационные характеристики здания. Например, прохладные крыши специально спроектированы так, чтобы отражать солнечные лучи. Прохладные крыши отражают больше солнечного света, чем любая обычная черепичная крыша. Это предотвращает попадание горячего или холодного воздуха внутрь в самую верхнюю часть здания. Летом, под палящим солнцем, температура темных черепичных крыш может достигать 65,5 градусов по Цельсию. Отражение прохладной крыши может снизить эту температуру более чем на 50 градусов. Снижение температуры крыши, безусловно, является преимуществом.

Существуют разные принципы экологического дизайна зданий:

**Принципы Тодда:**

1. Дизайн должен следовать закону жизни, а не наоборот;
2. При проектировании необходимо учитывать биологическое равенство;
3. Следует использовать возобновляемые источники энергии;
4. Необходимо хорошо понимать концепцию конструктивных ограничений;
5. Дизайн должен демонстрировать соответствие концепции биорайонирования;
6. Реагирование на изменения климата должно быть тщательно изучено.

**Ганноверские принципы:**

1. Использование малотоксичных или нетоксичных материалов;
2. Использование энергосберегающих материалов;
3. Устранение отходов должно занимать основное место в проекте;
4. Зависимость от природных энергетических потоков;
5. Принятие ответственности за любые последствия проектных решений.

**Другие принципы**:

1. Использование многоразовых и перерабатываемых материалов;
2. Материалы должны разрабатываться с учетом рыночных цен на вторичные материалы;
3. Долговечность должна быть высшим качеством конструкции. Дизайн должен гармонировать с природой и окружающей средой и дополнять друг друга.

Любое здание отелей, туристических комплексов, санаторий, домов отдыха или любое другое строение, обладающее перечисленными выше характеристиками, может быть «зеленым зданием».

Однако следует отметить, что не все «зеленые здания» одинаковы. Разные страны, разные регионы, региональные климатические условия, уникальные культуры и традиции, разные типы строительства, время производства или широкие экологические, экономические и социальные приоритеты – каждый из них формирует свой подход к «зеленому строительству».

**6. Заключение**

В статье рассматриваются проблемы развития туристической инфраструктуры Шеки - Закатальского экономического района. Определены достоинства и недостатки существующей инфраструктуры Шеки-Закатальского района для развития туризма. Предложены принципы устойчивого проектирования туристических комплексов в регионе. Показывается важность

перехода от традиционных к зеленым технологиям в секторе устойчивого строительства, а также определены важные факторы и проблемы применения зеленых технологий в градостроительстве.

**Литература**

1. Мамедова Г.Г., Гаджиева С.Х. (2014), Памятники архитектуры северо-западного региона Азербайджана (Габала, Огуз, Шеки, Гах, Закатала, Балакен). 273.

2. Мамедова Г.Г., Гаджиева С.Х. (2002), Киш-выдающийся памятник архитектуры кавказкой Албании Азербайджана. 104 .

3. Hasanli A.N. (2021), Development of tourism in the Sheki-Zagatala region of Azerbaijan. Materials of international congress on social sciences, USBIK 2021, Turkey, Kayseri, 26-28 February. 170-176.

4. Hasanli A.N., Mirzeyev M.S. (2021), The impact of ecological factors on tourism in Azerbaijan. 4th International Congress on Contemporary Architecture and Urban Affairs. 255-259.

5. Hasanli A.N., Mehrabova M.A. (2021), The Influence of Alternative Energy Means on the Archi-tectural Shaping, International Journal of Cultural Heritage. 6, 26-30.

6. Гельманова З.С., Амирханова М.А., Георгиади И.В. (2016), «Зеленое» строительство как эффективный инструмент для обеспечения устойчивого развития территорий. Научное обозрение. Экономические науки. 1, 12-14

7. Мамедова А.М. Развитие зеленого строительства в Азербайджане. Экономика и социум, 2017, 7, 38, с.116-121

8. Мамедов Э.А. (2019), "Зеленое" строительство и экологическая безопасность зданий и сооружений. IX Международной научно-практической конференция “Инвестиции, строительство, недвижимость как драйверы социально-экономического развития территории и повышения качества жизни населения”. Томск, 12–15 март 2019, 1, 25-29.

9. Chen L., Hu Y., Wang R., Li X., etc. (2023), Green building practices to integrate renewable energy in the construction sector: a review. Environmental Chemistry Letters.

10.Laffta S., Al-rawi A.j. (2018), Green technologies in sustainable urban planning. MATEC Web of Conferences, 162, 05029.

# BEŞBARMAQ SƏDDİNİN TARİXİ ƏHƏMİYYƏTİ

**İbrahimov Anar Şahbaz oğlu**
Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi
“Beşbarmaq dağı” Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğu
Elmi işçi
ibrahimov.11.09.97@gmail.com
055-941-84-99
Siyəzən. Azərbaycan

**XÜLASƏ**

Tarixi qalalar və sədlər dövlətlərin əsas paytaxt şəhərləri başda olmaqla digər vacib yaşayış yerlərini də qorumaq üçün tikilən müdafiə sistemidir. Onların bəziləri var ki, bir neçə yüz il ərzində tikilib və indi də hərbi istehkam abidəsini təmsil edir və yerləşdikləri yerlərə görə unikallığını qoruyur. Qalaların bəziləri dəniz sahillərində də yerləşə bilər. Möhkəm inşa olunan qalalar bir neçə əsr ərzində öz rolunu yerinə yetirə bilir və qoruduğu yerin düşmənin hücumuna məruz qalması zamanı az tələfat verməsini təmin etməyi bacarır. Hazırda isə bir çox müdafiə strukturları sistemi təyinatı üzrə istifadə

edilmir, indi onlar ekskursiyaların keçirildiyi məşhur turistik yerdirə çevrilib. Bu cür müdafiə sisteminə Azərbaycan ərazisində rast gəlmək olar. Məlum olduğu kimi tarix boyu çoxsaylı hücumlara məruz qalan Azərbaycanı bu basqınlardan qorumaq üçün müxtəlif dövlərdə inşaa olunan qala və sədlərin hər birinin özünəməxsus memarlıq xarakteristikası vardır. Belə abidələrdən biri də şimaldan gələn yürüşlərin qarşısını almaq üçün tikilən Beşbarmaq səddidir. Yazılan məqalədə isə bu səddin tarixi əhəmiyyəti və onun inşaat texnologiyasına yer verilib. Beşbarmaq səddinin şimaldan gələn hücumlardan qorunmaq üçün qurulan ümummüdafiə sistemində tutduğu mövqe və ondan istifadə imkanları da tədqiqatın praktik əhəmiyyəti kateqoriyasına daxildir. Yazılan məqalənin aktuallığı da onunla ifadə olunur ki, bu ərazidə hələ də arxeoloji qazıntılar aparılır və səddin bir hissəsi artıq aşkar edilib və onun üzərində tədqiqat işləri hələ də davam edir.

**AÇAR SÖZLƏR:** qala, sədd, istehkam, müdafiə, memarlıq

**GIRIŞ**

Azərbaycan ərazisi öz yaşam imkanlarının genişliyi ilə əlaqədar olaraq ilk insanların məskunlaşdığı yerlər siyahısına daxil olmuşdur. Əfraf mühitin zənginliyi və təbii coğrafi mövqeyin əlverişli olması səbəbi ilə bu ərazidə oturaq həyata keçidin tarixi çox qədimə dayanır. Sadalanan bu xüsusiyyətlər Azərbaycan ərazisinin tarix boyu hücumlara məruz qalması üçün zəmin yaratmışdır. Baxmayaraq ki, mehriban və qonaqpərvər bir xarakterə malik olan Azərbaycan xalqının bu yaxşı xüsusiyyətlərindən qonşu xalqlar çox zaman mənfi mənada istifadə etmişlər. Məhz bu kimi xoşagəlməz hallara hər zaman hazır olmaq üçün müxtəlif cür silahlar istehsalı ilə yanaşı müdafiə xarakterli qalalar və sədlərdə inşa edilmişdir.

Qafqaz dağları ilə Xəzər dənizi arasındakı dar keçid qədim zamanlardan Xəzərlər, Qafqaz Albaniyası, Atropatena və Qədim Şərqin bir çox ölkələrinin xalqları üçün karvan yolu kimi xidmət etmişdir. Eyni zamanda köçəri tayfalar Şərqi Avropadan Abşerona, Kür-Araz ovalığının münbit torpaqlarına, Qərbi Asiya və bir sıra başqa ölkələrə də bu yoldan istifadə edərək gəliblər. Ancaq, qeyd olunan ərazidə mövcud olan dövlətlər şimal sərhədlərinin təhlükəsizliyini təmin etmək üçün müxtəlif müdafiə sistemləırindən istifadə edirdilər ki, bunlardan biri də tikilən səddlər idi.

Dərbənddən Abşerona qədər bir neçə yerdə Qafqaz dağlarının dənizə daha yaxın olması bu ərazilərdə bir sıra müdafiə istehkamlarının yaranmasına səbəb olmuşdur. Ən əlamətdarları Xəzər yolunun ən dar və coğrafi cəhətdən əlverişli yerində tikilmiş Dərbənd istehkamları idi.

Dərbənddən əlavə Gilgilçay və Beşbarmaq qalalarının izləri bu günə qədər gəlib çatmışdır ki, onlar da Xəzər vadisini tamamilə bağlamış və dağlara qədər uzanmışdır.

Müasir dağların yaxınlığında yerləşən əzəmətli otuz kilometrlik Gilgilçay istehkamları Siyəzəndə dağlarda geniş və möhkəm qurulmuş Çıraqqala qalası ilə başa çatmışdır. Bu sistemi tamalayan digər bir halqa isə Beşbarmaq səddidir.

Xəzər vadisini bağlayan ən azı üç müdafiə istehkamının olmasına baxmayaraq, əksər tədqiqatçılar nədənsə bütün mövcud adları Dərbənd istehkamlarına aid edirlər. İstehkamların adları belə idi: Xəzər qapıları, Alban qapıları, Dəniz qapıları, sülh və müharibə tanrısı Dərbənd qapıları adlanır. Qeyd olunanlardan başqa ərəbcə Bab-əl-əbvab (qapının qapısı) və türkcə Dəmir-qapı (dəmir qapı) adı da vardır. Bu adlar onların coğrafi mövqeyinin, strateji əhəmiyyətinin və müəyyən dərəcədə etnik mənsubiyyətinin xüsusiyyətlərini əks etdirirdi.

Bu müdafiə sisteminə daxil olan əsas sədlərdən biri də Beşbarmaq səddidir. Qeyd edək ki, Beşbarmaq dağı Bakıdan 95 km. şimalda, Xəzər dənizinin sahilində yerləşir (40°57’30” şm. e., 49°13’56” ş. u.). Açıq havalarda günümüzdə də Xəzərin sahilindən bu dağı rahat şəkildə görmək olur.

“Beşbarmaq dağı və onun adının etimologiyası haqqında bir çox fərziyyələr, hekayələr mövcuddur. Bəlkə də onların heç biri həqiqəti əks etdirmir. Belə ki, yazılı mənbələrdə bu toponimin mənşəyi Bərməki tayfasının adı ilə izah olunur. Məsudinin "Qızıl yuyulan yer və cəvahirat mədənləri" əsərində "Bərməki" adı ilə tanınan daş səddən bəhs edilir. Abbasqulu ağa Bakıxanov isə "Gülüstani-İrəm" əsərində Quba nahiyəsinin cənubunda yerləşən Bərməki mahalı haqqında məlumat verir. Deyilənlərdən də aydın olur ki, bu dağlarda yaşayan Bərməki tayfasının adı ilə bağlı olan məkan sonralar dəyişikliklərə uğrayaraq Beşbarmaq ifadəsi kimi dillərdə dolaşıb.” (8)

Dağ haqqında təkcə əfsanələr deyil, həm də bir çox səyyahlarda öz əsərlərində qeydlər ediblər.

XIII əsr fransız səyyahı V.Rubrukun qeydlərində də xatırlanır. Beşbarmaqdan qalan qala divarı düz Xəzər dənizinə qədər uzanırdı. VII əsr coğrafiyaşünasları bu divarı Atlı Van divarı adlandırmışlar. Bəzi tədqiqatçılar hesab edirlər ki, bu qala Şirvan bölgəsini Xursan ölkəsindən ayırıb.

XVII əsrdə Şərqi Azərbaycanda olmuş holland səyyahı Yan Streys yazırdı: "Biz dənizin yaxınlığında bir dağ gördük. Onu Parmah və ya Barmah adlandırırdılar. Dağın zirvəsi uzanmış şəhadət barmağına bənzəyirdi. Bir vaxtlar bu ərazilərin müdafiəsi kimi xidmət edən möhtəşəm bir qala var idi. Bu qalanın bünövrəsi və daş bulağı bu günə kimi burada qorunub saxlanılıb".

Alban tarixçisi Musa Kalankatuyski yazır ki, Beşbarmaq üzərində qalan qala 438-457-ci illərdə Sasani hökmdarı Yezdegird tərəfindən tikilmişdir.

1636-1638-ci illərdə müasir Azərbaycan ərazisində olmuş alman səyyahı Adam Olearius da öz yazılarında dağı təsvir etmişdir.

Ümumiyyətlə, daşların özləri daha çox maraq doğurur, onların bir çoxu qəribə formadadır, bəziləri hava şəraitinin təsiri altında çatlamış, digərləri çökmüş, digərləri isə yağış və su axınları nəticəsində boşluqlar almışlar. Qayaları araşdırarkən, sanki qılıncla iki hissəyə bölünmüş bir daş blok görünür. Yaxınlıqda böyük bir daşın üzərində kiçik, lakin uzun bir çökəklik var idi. Yerli əhalinin dediyinə görə, bu yerdə (yalnız cümə günləri) müqəddəs şirin su axır ki, Xızır peyğəmbərin göz yaşları ona müalicəvi güc verir. Təbii ki,bu su kondensasiya və ya yağış prosesində toplana bilər, sonra da daşlardakı çatlar və yarıqlardan sıza bilər.

Beşbarmaq ətrafında çoxlu qeyri-adi formalı daş və qayalıqlar olduğunu adi gözlə görmək olar. Alimlərin fikrincə, dağın ətrafında aparılan qazıntılar sayəsində qədim yaşayış məskənlərinin qalıqları, qab-qacaq və məişət əşyaları nümunələri aşkar edilib ki, bu da insanların bu ərazidə uzun müddət məskunlaşdığını təsdiqləyir. Bu faktı karvansaranın xarabalıqları, qala divarları və yerli qəbiristanlıq, qədim yaşayış məskənlərinin qalıqları da təsdiq edir. Bura yaxın qonşu kiçik dağların zirvələrində Beşbarmaq dağına bənzər kiçik qayalı massivləri görünür. Bu onu deməyə əsas verir ki, belə qayalıq massivlər bu ərazi üçün xarakterikdir, lakin Beşbarmaq dağı onların ən böyüyü və əzəmətlisidir və buna görə də insanlara fövqəltəbii güc, sehrli xüsusiyyətlər və qeyri-real bir şey bəxş edir. Bəlkə də burada mövcud olan enerji insanları bu dağın möcüzəvi xüsusiyyətlərinə inandırır.

Düzdür, "Beşbarmaq" adının başqa yozumu da var. Deyirlər ki, bu toponim qədim türkcə "zirvədə yaşayış" mənasını verən "parmaq" sözündəndir. Bu, IX əsr ərəb səyyahı Əl-Məsudinin yazılarında rast gəlinən ilk yerli toponimdir.

İnsanlar Beşbarmağın müqəddəs məkan olduğuna inanır və rəvayətə görə, ümid və arzuların gerçəkləşdiyi yerdir. Hələ qədim zamanlarda Beşbarmaq dağı Qafqaz Albaniyasının sakinlərinin ibadət yeri olub.

Bunun izahı çox sadədir. Hələ monodinlərin - yəhudiliyin, xristianlığın və islamın yaranmasından əvvəl, hətta atəşpərəstlikdən, daha sonra isə zərdüştilikdən əvvəl qədim insanlar bu gün çoxlarının unutduğu bir dinə - orolatriyaya etiqad edirdilər.

Bu, dağ zirvələrinə, qeyri-adi formalı qayalara və ayrı-ayrı iri daşlara sitayişdir. Qeyri-adi olan hər şey ilahiləşdirildi, buna görə də sərbəst dayanan yüksək qayaların arzuları yerinə yetirə biləcəyinə inam yarandı.

"Dağın tarixi əhəmiyyətinə gəlincə isə ilkin Orta əsr yazılı qaynaqlarda Beşbarmaq səddi haqqında bir sıra məlumatlar yer alır. Tarixçilər Yegişe və L.Parpetsinin qeydlərində bu müdafiə divarlarının albanlar və hunlar arasında salınmış istehkam olduğu nəzərə çatdırılır. V əsrin birinci yarısında Albaniya və Sasani dövlətləri tərəfindən inşa edilən səddin 452-ci ildə hunlar tərəfindən dağıdıldığı ehtimal edilir. Sədd dağıdıldıqdan sonra yerində yenisi inşa edilməyib, əvəzində isə Gilgilçay boyunca Şabran müdafiə qalası tikilib." (8)

Bu fakt onu da sübut edir ki, səddin mövcud olması və möhkəmləndirilməsi hər zaman Sasani dövlətinin diqqətində olmuşdur. Mulumdur ki, uzun sürən Sasani-Bizans müharibələri müddətində şimal sərhədinin təhlükəsizliyi olduqca aktual məsələ sayılırdı. Bu da bilinir ki, bu sədd şimaldan gələ biləcək türk axınının qarşısını almaq üçün qurulan bir müdafiə sistemidir.

"Müasir dövrümüzdə Beşbarmaq səddinin ilk təsvirini 1925-ci ildə Beşbarmaq arxeoloji ekspedisiyasını həyata keçirən E.A.Paxomov tərəfindən təqdim olunmuşdur. E.A.Paxomov tərəfindən müəyyən edilmişdir ki, Beşbarmaq dağı ilə Xəzər dənizi arasındakı sahil zolağı 1,75 km olmuşdur. Onun verdiyi məlumatlara əsasən burada istifadə edilən kərpiclərin qalınlığının 7 sm qədər olduğunu

müəyyən etmişdir. Paxomovun qənaətinə görə, burada istifadə olunan kərpiçlər daha çox III-VII əsrlər dövrünün kərpiçlərinə uyğun gəlir.” (6)

Səddin qalıqları Bakı – Şabran magistral yolundan 150 m şərqdə düz xətt boyunca daha qabarıq bilinir. Magistral yoldan təxminən 500 m şərqdə səddin qalıqları üstündə eni 5 m olan boşluq, təxm.700 m şərqdə isə hündürlüyü 2 m olan təpə vardır. Sədd üzərində belə təpələrin mövcudluğu səddin üzərində bürclərin olmasının göstəricisidir. Dənizə doğru yaxınlaşdıqca səddin hündürlüyü şimaldan 5 m, cənubdan 2 m-dir. Bu güman ki, müdafiə ehtiyacının daha çox şimaldan yaranması ilə bağlıdır. Dənizin sahilində bir-birilə əlaqəli sahilboyu uzanan təpələr vardır. Səddin bir hissəsi isə ehtimal ki, suyun altında qalmışdır. 1969-cu ildə sualtı arxeoloji tədqiqatlar qrupu müəyyənləşdirdi ki, abidənin Xəzər sahili ikinci terrasında şimal və cənub sədləri birləşir. Sahildən 60-70 m aralı dənizin dibində ikinci bir terras vardır. V.P.Kvaçidzenin fikrincə Beşbarmaq valları dənizin səviyyəsinə uyğun olaraq tikilmişdir (Ə.Əliyev, 2014).

**TƏDQIQAT METODU**

“Beşbarmaq dağı” Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğu 8 iyun 2020-ci il tarixli Prezident sərəncamına əsasən yaradılıb. Qoruğun ərazisi Siyəzən rayonunun Qalaşıxı kəndində yerləşən Beşbarmaq dağı təbiət abidəsinin ərazisini əhatə edir.

Azərbaycanın nadir təbiət abidələrindən olan Beşbarmaq dağının ətrafında dövlət mühafizəsinə götürülmüş bir sıra tarix və mədəniyyət abidələri (son tunc – ilk dəmir dövrünə aid yaşayış yeri, Xızırzində piri, ilk orta əsrlərə aid qala qalıqları, XV-XVII əsrlərə aid karvansara qalıqları) yerləşir. İlk orta əsrlərə aid Beşbarmaq paralel müdafiə səddi “Xəzər sahil mühafizə konstruksiyaları” daxilində 2001-ci il oktyabrın 24-də UNESCO-nun Təcili Qorunmaya Ehtiyacı olan Maddi-Mədəni İrsin İlkin Siyahısına daxil edilib.

2021-ci il iyulun 1-də Nazirlər Kabineti tərəfindən Qoruğun əsasnaməsi təsdiqlənib.” (9)

Qeyd etmək lazımdır ki, Beşbarmaq paralel müdafiə divarları, Beşbarmaq qalası və ətrafda olan abidələr haqqında müxtəlif mənbələrdə məlumatlara rast gəlinsə də, tarixi tam olaraq yalnız arxeoloji qazıntılar vasitəsi ilə bərpa etmək mümkündür.

“AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun elmi işçisi Sevinc Hüseynovanın rəhbərlik etdiyi “Beşbarmaq” arxeoloji ekspedisiyası tərəfindən qoruq ərazisində ilk dəfə aparılmış elmi tədqiqatların əsas məqsədi tarixi Beşbarmaq qalasının, onun yaxınlığında yerləşən tarixi qəbiristanlığın, orta əsrlərə aid karvansarayın, Sasani dövrünə aid müdafiə səddinin, digər tikililərin memarlıq xüsusiyyətlərini, dövrünü müəyyənləşdirmək, bölgənin gələcəkdə mədəni turizm perspektivləri üçün abidələri tədqiq edərək təkliflər hazırlamaq olub.

İlkin tədqiqatlar nəticəsində Beşbarmaq qala tikililərinin və mənbələrdə adı çəkilən 4 qala bürcündən ikisinin yeri tapılaraq müəyyən olunub, Narınqalanın daxilindəki tikililərin ikisi açılaraq yeri və təyinatı haqqında bəzi elmi nəticələr əldə edilib. “Beşbarmaq” Qoruğu ərazisində aparılmış arxeoloji tədqiqatlar ərazinin mədəni irs dəyərinin gələcəkdə yerli və xarici turistlərə daha yaxşı izah edilməsi, müvafiq mədəni turizm məhsullarının hazırlanması, həm də Beşbarmaq ərazisinin elmi-arxeoloji nöqteyi-nəzərindən tədqiq edilməsi üçün bir mərhələ kimi qarşıya çıxıb.

Narınqalanın daxilindəki dördkünc planda olan tikililər sal qaya parçaları ilə hörülüb. 3x4 m ölçülərində olan tikililərin alt hissəsində, 4 qatdan sonra antiseysmik tədbir kimi divarın perimetri boyu seysmik qurşaq adlandırılan kətillər, taxta materialdan tirlər düzülüb. Otağın şərq divarında oval formada kürsü qurulub. Kürsünün içərisi istinin təsirindən qızarıb və hisdən qaralıb. Otaqlardan XIV-XV əsrlərə aid keramika qalıqları aşkar olunub. Tikililərdən aşağı təbəqədə divar qalıqlarının aşkar edilməsi qalanın daha erkən dövrlərə aid olduğunu söyləməyə əsas verir.

Orta əsrlərə aid mənbələrdə təsvir edilən 4 qala bürcündən biri və bürcə bitişik qala divarının bir hissəsi qazılaraq tədqiq olunub. 8 m diametrində olan iri daşlardan qurulmuş Narınqala bürcü və qala divarlarının qalıqları burada qala şəhərin mövcudluğundan xəbər verir.

Qalanın cənub şərqində dağılmış tikililərin qalıqları olan sahədə də tədqiqatlar aparılıb. Buradakı qalıqların XIX-XX əsrin əvvəllərinə aid yaşayış evlərinin dağıntıları olduğu müəyyən edilib. Maraqlısı odur ki, evlərin tikintisi zamanı daha qədim dövrlərə aid sənduqələrdən tikinti materialı kimi istifadə edilib. Yaşayış evlərinin divarlarında sənduqələrdən tikinti materialı kimi geniş şəkildə istifadə olunmasına ilk dəfədir rast gəlinir. Hər bir dördkünc tikilinin divarlarında bir və ya iki sənduqənin olduğunu müşahidə etmək mümkündür. Sənduqələrin üzəri həndəsi və nəbati ornamentlərlə bəzədilib. Bəzi naxışların sonu altı guşəli ulduzla yekunlaşır.

Paralel divarlarda aparılan kəşfiyyat işləri onlardan birinin istiqamətini müəyyən etməyə imkan verib. Bu divar, Qalaşıxı kəndindən başlayaraq dənizə qədər uzanır. Səddin şimalında, iki yerdə bürc və ya müşahidə qülləsinin qalıqları aşkar edilib." (9)

**NƏTICƏ**

Hazırda qayaların ətəyində müdafiə divarlarının qalıqlarını görmək olar. Tarixçilərin fikrincə, Sasanilər imperiyası ərazini ələ keçirən zaman qayalıq massivin hər iki tərəfində müdafiə divarları hörülmüşdür. Divarlar (eni 2,5 m, hündürlüyü təqribən 3 m) olduğu qeyd olunur və IV-VII əsrlərdə Xəzər dənizindən Azərbaycan ərazisinə hücum edən massagetlər, xəzərlər, hunlar, alanlar kimi mübariz köçəri tayfalardan qorunmaq üçün orta əsr kərpicindən və çay daşlarından tikilmişdir. dəniz. Burada qeyd etmək yerinə düşər ki, Dərbənddən başlayaraq ölkənin şimal-qərb ərazilərində də oxşar istehkamlara, eləcə də qalalara, darvazalara və divarlara rast gəlmək olar. Bu tarixi yerlərin müdafiə tikililərində istifadə olunan material baxımından çox ortaq cəhətlərə malikdir və onları həm də vahid quraşdırma məqsədi birləşdirir.

**ƏDƏBIYYAT SIYAHISI**

1. Aşurov S, Hüseynova S. "Beşbarmaq Dağı" Dövlət Tarix-Mədəniyyət və Təbiət qoruğu ərazisində 2021-ci ilin yayında aparılan arxeoloji qazıntıların hesabatı. AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun Elmi Arxivi, Bakı, 2021, 8 s.

2. Aşurov S, Hüseynova S. "Beşbarmaq Dağı" Dövlət Tarix-Mədəniyyət və Təbiət qoruğu ərazisində 2021-ci ilin payızında aparılan arxeoloji qazıntıların hesabatı. AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun Elmi Arxivi, Bakı, 2021, 155 s, H-987.

3. Azərbaycan tarixi üzrə qaynaqlar. Bakı, Azərbaycan Universiteti Nəşriyyatı, 1989.

4. Fətəliyev R. Müqəddəs dağın görünməyən tərəfləri, Kaspi qəzeti, 5 dekabr 2019-cu il.

5. Hüseynova S.A. "Beşbarmaq Dağı" Dövlət Tarix-Mədəniyyət və Təbiət qoruğu ərazisində aparılan arxeoloji qazıntıların hesabatı. AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun Elmi Arxivi, Bakı, 2020, 49 s, H-961.

6. Пахомов Е.А. Гора Беш-Бармак и ее древности, Известия Азербайджанского археологического комитета. Вып. 2. Баку, 1926.

7. Пахомов Е.А. Крупнейшие памятники сасанидского строительства в Закавказье, Проблемы истории материальной культуры. Л., Изд-во. АН СССР, 1933, № 9-10. 1933, с. 37-46.

**İnternet resusrsları**

8. https://www.azerbaijan-news.az/az/posts/detail/besbarmaq-mistikasi-peygemberlerin-gorus-mekani-muqeddes-ziyaretgah-tarixi-istehkam-1654634716

9. https://www.heritage.org.az/managed-units/besbarmaq-dagi-dovlet-tarix-medeniyyet-ve-tebiet-qorugu

# NAXÇIVANIN TARİXİ MEMARLIQ ABİDƏLƏRİNDƏ HƏNDƏSİ ORNAMENTLƏRİN TƏRTİBAT XÜSUSİYYƏTLƏRİ

**İLAHƏ BABAYEVA MUSA QIZI**
Bakı Mühəndislik Universiteti
Memarlıq və İnşaat fakultəsi, Memarlıq mühitinin dizaynı ixtisası
*email: ibabayeva1@std.beu.edu.az*
BAKI, AZƏRBAYCAN

**XÜLASƏ**

İbtidai cəmiyyətdə insanlar onları əhatə edən ətraf aləm haqqında təsəvvürlərini məhz rəmzlər vasitəsilə ifadə etmiş, bu vasitə ilə mifoloji təsəvvürlərini, dünya, kainat haqqında görüşlərini nəsildən-nəsilə ötürmüşlər.

Azərbaycan tarix boyu mövcud olmuş və müxtəlif sahələrə aid rəmzləri əks etdirən qeyri-maddi mədəni irs nümunələri ilə zəngindir. Hər bir xalqın mədəniyyəti müxtəlif ornamentlərdən, elementlərdən o cümlədən əsasını gerçəklikdən alan rəmz və işarələrdən ibarətdir. Digər xalqlarda olduğu kimi, Azərbaycan mədəniyyətinin müxtəlif sahələrində rəmzlərə rast gəlmək mümkündür.

Ornamentlərin tarixi isə daha qədimlərə gedib çıxır. Hətta onların bir çoxu arxeoloji materiallarda belə öz əksini tapmışdır. Arxasında duran təsəvvürün unudulması nəticəsində həmin rəmzlər sonralar arxaik mənalarını itirmiş, bədii personajlara, bəzək elementlərinə çevrilmişdir.

Bu məqalədə Naxçıvan şəhərindəki tarixi memarlıq abidələrində həndəsi ornamentlərin tərtibat xüsusiyyətləri araşdırılmışdır. Naxçıvan şəhərinin tarixi memarlıq abidələrinin fasadında yerləşən ornamentlərin öyrənilməsi əhəmiyyətli və aktual məsələlərdəndir.

**AÇAR SÖZLƏR: Naxçıvan, türbə, ornament, mif, həndəsi.**

**SUMMARY**

In the primitive society, people expressed their ideas about the surrounding world through symbols, and by this means, they passed their mythological ideas, ideas about the world, the universe from generation to generation.

Azerbaijan is rich in examples of intangible cultural heritage that have existed throughout history and reflect symbols of various fields. The culture of each nation consists of various ornaments, elements, including symbols and signs based on reality. As in other nations, it is possible to find symbols in different areas of Azerbaijani culture.

The history of ornaments goes back to ancient times. Even many of them are reflected in archaeological materials. As a result of forgetting the imagination behind them, those symbols later lost their archaic meanings and turned into artistic characters and decorative elements.

In this article, the design features of geometric ornaments in historical architectural monuments in Nakhchivan city are investigated. The study of the ornaments located on the facades of historical architectural monuments of Nakhchivan is one of the important and urgent issues.

**Keywords: Nakhchivan, tomb, ornament, myth, geometric.**

## GIRIŞ

İbtidai cəmiyyətdə insanlar onları əhatə edən ətraf aləm haqqında təsəvvürlərini məhz rəmzlər vasitəsilə ifadə etmiş, bu vasitə ilə mifoloji təsəvvürlərini, dünya, kainat haqqında görüşlərini nəsildən-nəsilə ötürmüşlər.

Ornamentlərin tarixi daha qədimlərə gedib çıxır. Hətta onların bir çoxu arxeoloji materiallarda belə öz əksini tapmışdır. Arxasında duran təsəvvürün unudulması nəticəsində həmin rəmzlər sonralar arxaik mənalarını itirmiş, bədii personajlara, bəzək elementlərinə çevrilmişdir.

Simvol və ornamentlər özlüyündə fərqli ifadə vasitələrinə görə müxtəlif qruplara bölünür. Bunların içərisində ən geniş yayılanı simvolların saylarla, fiqurlarla ifadəsidir. Məsələn, Azərbaycan folklorunda 7 sayı müqəddəs rəqəm hesab olunur (göylər aləminin yeddi qatdan ibarət olduğu düşünülür və s.).

Azərbaycan tarix boyu mövcud olmuş və müxtəlif sahələrə aid rəmzləri əks etdirən qeyri-maddi mədəni irs nümunələri ilə zəngindir. Hər bir xalqın mədəniyyəti müxtəlif ornamentlərdən, elementlərdən o cümlədən əsasını gerçəklikdən alan rəmz və işarələrdən ibarətdir. Digər xalqlarda olduğu kimi, Azərbaycan mədəniyyətinin müxtəlif sahələrində rəmzlərə rast gəlmək mümkündür. Rəmz dedikdə hansısa fikir və ideyanın obrazlı şəkildə yəni rəmzlərlə əksi nəzərdə tutulur. Ətraf aləmin simvollarla dərki ibtidai təfəkkürün əsas xüsusiyyətlərindən biri hesab olunur. İbtidai mifləri, arxaik dinləri, arxaik incəsənət formalarını onlarsız təsəvvür etmək mümkün deyil. Ornamentlərin ən sadə ünsürlərinə – düz və sınıq xətlərə, ziqzaqlara, dairələrə, üçbucaqlara, kiçik romblara, nöqtə ornamentinə Azərbaycanda hələ erkən bürünc dövrünə (e.ə. III minillik) aid saxsı qabların üzərində rast gəlinir.



**Şəkil 1-4**

Naxçıvan şəhərində işlənilmiş saxsı qab (**şəkil 1**), II Kültəpə ərazisində tapılan boyalı saxsı qab (**şəkil 2**), E.ə III -II minilliyə aid Kəngərli rayon Şahtaxtı kəndi ərazisində aşkar olunmuş küpə (**şəkil 3**)[12], Naxçıvanda I Kültəpə yaşayış yeri Cənubi Qafqazın ən qədim Neolit abidəsidir. (**Şəkil 4**)[13]

Bir və ya bir neçə elementin ritmik təkrarına ornament deyilir. Ornamentlər həndəsi, nəbati, heyvansal və zoomorf kimi başlıqlar altında tədqiq edilir.

Ornamentin bir hissəsi və əsas elementi isə motifdir. Motif, bütöv tamlıq təşkil edən bir və ya bir neçə elementdən ibarət ola bilər.



**Çizim 1. Şəkil 5**. On bucaqlı motif və ornament

Çizim. 1 – Naxçıvan şəhərində yerləşən "Mömünə Xatun türbəsi" nin fasadında işlənilmiş həndəsi ornamentin kompyuter programı ilə hazırlanmış forması.

Bu naxışların özləri də həndəsi, nəbati, zooloji, astroloji və antropoloji olmaqla müxtəlif qruplara bölünür. Ornamentlər də simvollarda olduğu kimi xalqın kodlaşmış qədim inanclarını əks etdirir və zənginliyi ilə seçilir.

[12] https://www.facebook.com/share/p/6ddBJZsMcLjhafR3/?mibextid=oFDknk
[13] https://azertag.az/xeber/naxchivandaki_i_kultepe_yasayis_yeri_cenubi_qafqazin_en_qedim_neolit_abidesidir-996551

Həndəsi ornamentlər riyazi qanunauyğunluqla qurulmuş elə təsviri silsilələrdir ki, onlar estetik zövq vermə ilə yanaşı müəyyən semantik məzmun da daşıyırlar.

Həndəsi ornamentlərin təkrarlanan elementi xaç, kvadrat, romb, altıüzlü və ya səkkizguşəli ulduz kimi müxtəlif həndəsi fiqurlardan, bəzən həndəsiləşdirilmiş nəbati və heyvani formalardan seçilə bilər. Həndəsi naxışlar iki qrupa bölünür: sadə və mürəkkəb. Sadə həndəsi naxışlar sırasına düz, sınıq və dalğavarı xətlərdən ibarət, həmçinin günəşin, ayın, ulduzların təsvirini əks edən rəsmləri daxil etmək olar.

Mürəkkəb həndəsi naxışların əksəriyyəti memarlıq abidələrinin – daş, taxta, gəc oymalarında, kərpic və kaşı üzərindəki sahələrdə tor şəklində qurularaq müəyyən fiqur və xətlərin təkrar olunmasından alınır.

Mürəkkəb həndəsi naxışlara əsas etibarı ilə memarlıq abidələrinin bədii tərtibatında rast gəlmək olur. Bunların əksəriyyəti tarix etibarı ilə orta əsrlərə aiddir. Əsasən ara sahələrin bəzədilməsində istifadə edilən bu naxışların ən gözəl və mürəkkəb nümunələrini XIII-XIV əsrlərdə yaradılmış memarlıq abidələrində görürük. Bu tipli mürəkkəb həndəsi torvarı naxışların gözəl örnəklərinə Naxçıvan MR Culfa şəhəri yaxınlığındakı "Gülüstan" türbəsi, Bakı və onun ətrafında yerləşən memarlıq abidələrində – Sınıq-qala minarəsinin şərəfəsi (1087-ci il), Şirvanşahlar kompleksindəki Seyid Yəhya Bakuvinin türbəsi və Divanxanada verilən ornamentlər (XV əsr) və s. rast gəlirik. Torvari həndəsi naxışlar bir sahəni bütünlüklə örtmək məqsədi ilə (düzbucaq, romb, üçbucaq, paraleloqram və altıbucaq kimi) həndəsi fiqurların zəncirvari şəkildə düzülüşündən əmələ gəlmişlər.



**Şəkil 6.** Seyyid Yəhya Bakuvinin türbəsi



**Şəkil 7.** Gülüstan türbəsi

Naxçıvan memarlıq abidələrində ornamentlər

Memarlıq abidələri üzərində bəzək xarakterli bir çox ornament motivi vardır ki, bunlar da uzaq keçmişdə rəmzi (simvolik) məna kəsb etmiş,xalqın həyatında xüsusi rol oynamışdır. Memarlıq abidələrimiz üzərində rast gəlinən həndəsi ornamentlər quru, statik üsulda, özü də əksər hallarda o biri bəzək növləri ilə az əlaqədə işlənsə də, orijinallığı və bədii obrazlığı ilə həmişə incəsənətimizin və o cümlədən də dekorativ sənətin ayrılmaz tərkib hissəsi olmuşdur. Bunların bir neçə nümunəsi Naxçıvan MR-in ərazisində bu günümüzə qədər qalmaqdadır.Yusif Küseyir oğlu türbəsi (1162), Möminə Xatun türbəsi (1186), Gülüstan türbəsi (XIII əsr) buna misaldır.

Naxçıvan memarlıq məktəbinin banisi Əcəmi Əbubəkir oğlu Naxçıvaninin bizə qədər gəlib çatan ilk əsəri Yusif Küseyr oğlu türbəsidir. Bu türbə Naxçıvanın qülləvari türbələri içərisində xronoloji cəhətdən ən qədimi olan abidədir.[14].

Yusif Küseyr oğlu türbəsi iki qatlı olub, planda səkkizbucaqlı formadadır. Sərdabə hissəsi yer altına salındığından türbə xaricdən birqatlı qüllə kimi görünür. İlk baxışdan tutumunun həndəsi təmizliyi, nisbətlərin incəliyi və harmonik gözəlliyi ilə yadda qalır. Tübənin daxili bəzədilməmiş, əsas tikintisi və bəzək hörgüsü bir materialla – keyfiyyətli bişmiş kərpiclə işlənmişdir. Bu isə abidənin təmiz və aydın həndəsi biçiminin bütövlüyünü gücləndirir, ona vahid, ifadəli qırmızımtıl rəng verir.

[14] Naxçıvan Ensiklopediyası (II cild)

Türbənin divarları keyfiyyətli bişmiş kərpiclə 80 santimetr qalınlığında hörülmüşdür. Bişmiş kərpic kvadrat şəkilli olmaqla, 20x20x4,5 santimetr ölçüdə götürülmüşdür. Xarici həcmində





piramidşəkilli hissənin üstü kərpiclə örtülmüş, daxili günbəzə isə yarım dairəvi görkəm verilmişdir. **Çizim 2. –** Yusif İbn Küseyr oğlu türbəsi üzərində işlənilən ornamentin kompyuter programında hazırlanmış çizimi. Nəticədə daxili və xarici örtmələr arasında müəyyən boşluq sahəsi qalmışdır. Beləliklə, burada Yaxın Şərq memarlığının türbə inşaatında tətbiq olunan ikitəbəqəli günbəz örtüyü ilə qarşılaşırıq. Türbənin xaici üzlərində taxçalar sadə kərpiclə çərçivələnmişdir. Tağçaların daxili tamamilə kərpicdən yığılmş sıx həndəsi ornamentlərlə üzlənmişdir. Burada səthlər isə bütün üzlərdə müxtəlif rəsmlərdən ibarət həndəsi ornamen təşkil edən kərpiclərlə örtülmüşdür.

Xarici səthlərindəki ornament bəzəyinin xüsusuiyyəti onun ayrıca düzəldilərək, hazır şəkildə üzlərin səthinə bərkidilimiş ayrı-ayrı tavalardan tərtib olunmasıdır. Ornamentlər kiçik kərpiclərdən quraşdırılmış, sonra gəc məhulu ilə tavalar şəklində birləşdirilərək səthlərin üzərində bərkidilmişdir. Türbənin kərpic dekorunun ən mürəkkəb və zəngin örnəkləri "girih"(düyün) adlanan xüsusi həndəsi ornamentlərlə yaradılmışdır. Səkkizguşəli olan Yusif Küseyr oğlu türbəsinin taxçaları mürəkkəb quruluşlu kərpic girih naxışlar sistemi ilə örtülmüşdür. Girih naxışlarını əmələ gətirən elementlər həndəsi formalardan ibarət olmuşdur. Bu formalara çoxbucaqlılar, ulduzlar və ya onların hissələri aid edilir. Yusif Küseyroğlu türbəsinin Azərbaycan memarlığında yeni mərhələ olmasının, memarlıq dekorunda girih naxışlarının rol oynamasıdır. Abidədə adi düz hörgünün kərpicli ornament bəzəyi ilə uyğunlaşdırılması nəticəsində qüvvətli bədii təsir yaranmışdır. Ornamentli tavaların qovuşuq yerləri diqqətlə hamarlandığından üzlərdən hər bir səth ayrı-ayrılıqda rəsminə görə fərqlənən bütöv xalçanı xatırladır.

Naxçıvan memarlıq məktəbinin banisi Əcəmi Əbubəkir oğlu Naxçıvaninin bizə qədər gəlib çatan əsərlərindən biri də Mömünə Xatun türbəsidir. Mömünə Xatun türbəsinin on bucaqlı memarı planında hər birindən keçmək surətiylə Yasin surəsi ilə haşiyələnmiş və daha yuxarıdan başqa bir yazı qurşağı ilə kompozisiya davam etmişdir.[15] Bu, türbənin sifarişçisini və kimin xatirəsinə inşa edilməsini göstərən əsas kitabədir. Yazı qurşağın hündürlüyü 98 sm - dir. Kitabələrin yazılarının arxa səthi bir qədər seyrək hörülmüş adi bişmiş kərpiclərdir. Mömünə Xatun türbəsi 1186 – cı ildə Atabəy Eldəniz Şəmsəddinin oğlu Məhəmməd Cahan Pəhləvanın anası Mömünə Xatunun əziz xatirəsinə oğlu Cahan Pəhlavan tərəfindən tikilmiş, ümumi hündürlüyü 34 m olmuş, sonralar 8 m hündürlükdə olan xarici örtüyü dağılaraq 26 m olmuşdur. Elin yaddaşında "Atabəy günbəzi" olaraq qalan bu türbənin baştağında kufi xətti ilə bu sözlər yazılmışdır: " Biz gedirik, ancaqqalır ruzigar. Biz ölürük, əsər qalır yadigar". Türbə yeraltı və yerüstü hissələrdən ibarətdir. Yeraltı hissə - Sərdabə planda onbucaqdlıdır. Türbənin künclərindəki çıxıntılar kufi xətti ilə işlənmiş kitabələrlə örtülmüşdür. Bu kitabələrin uzunluğu 500 m - ə çatır. Türbənin xarici səthi həndəsi ornamentlərlərin kompozisiyasından ibarət firuzəyi kaşılarla daha da zənginləşdirlmişdir. Mömünə Xatun türbəsinin xarici səthində xətti yazılar istifadə edilmişdir. Türbənin fasadında yerləşən ornamentlər Yusif İbn Küseyr türbəsindən fərqli olaraq mürəkkəb quruluşdadır.

[15] "Naxçıvan Ensiklopediyası" ( 2 cilddə) Naxçıvan - 2005

**TƏDQIQAT METODU**

Naxçıvan şəhərində yerləşən tarixi memarlıq abidələrinə gedilmiş və araştırmalar aparılmışdır. Türbələrin fasad və daxilində fotoqraflar çəkilmiş, ölçülər götürülmüşvə ornamentlər kompyuter programı vasitəsi ilə işlənilmişdir. Daha sonra isə bu haqda yazılan kitab, jurnal, məqalə və materialların elektron variantlarından da məlumatlar əldə edilmişdir.

**NƏTICƏ**

Nəticədə Ornamentlər də simvollarda olduğu kimi xalqın kodlaşmış qədim inanclarını əks etdirir və zənginliyi ilə seçilir. Naxçıvan şəhərinin tarixi abidələrinin fasadlarında bir – birindən fərqli və mürəkkəb ornamentlər işlənilmişdir. Buraya ən çox həndəsi ornamentlərə aid edilir. Həndəsi ornamentlər riyazi qanunauyğunluqla qurulmuş elə təsviri silsilələrdir ki, onlar estetik zövq vermə ilə yanaşı müəyyən semantik məzmun da daşıyırlar.

Həndəsi ornamentlərin təkrarlanan elementi xaç, kvadrat, romb, altıüzlü və ya səkkizguşəli ulduz kimi müxtəlif həndəsi fiqurlardan, bəzən həndəsiləşdirilmiş nəbati və heyvani formalardan seçilə bilər. Həndəsi naxışlar iki qrupa bölünür: sadə və mürəkkəb. Sadə həndəsi naxışlar sırasına düz, sınıq və dalğavarı xətlərdən ibarət, həmçinin günəşin, ayın, ulduzların təsvirini əks edən rəsmləri daxil etmək olar.

Mürəkkəb həndəsi naxışların əksəriyyəti memarlıq abidələrinin – daş, taxta, gəc oymalarında, kərpic və kaşı üzərindəki sahələrdə tor şəklində qurularaq müəyyən fiqur və xətlərin təkrar olunmasından alınır.

Ornamentlər bir- birindən quruluşlarına, materiallarına və ölçülərinə görə fərqlənirlər. Abidələr üzərindəki ornament və motiflər bizə həmin dövrün memarlığından xəbər verir. Nəticə etibarı ilə bu ornamentlərin araşdırılaraq gələcək nəsillərə ötürülməsi aktual məsələlərdəndir.

**ƏDƏBIYYAT SIYAHISI**

1. Hacıfəxrəddin.S Yusif Küseyr oğlu türbəsi, Naxçıvan:”Əcəmi” Nəşriyyat- Poliqrafiya Birliyi,2021,36 səh.
2. A. Əliyeva – Naxçıvan abidələrinə diqqəti artırmalı, "Azərbaycan Abidələri" dərgisi, N 1, Bakı, 1984.
3. “Azərbaycan M.E.A- nın tarix inst. Elmi məqalələri”. Bakı- 1975
4. “Naxçıvan Ensiklopediyası” ( II cilddə) Naxçıvan – 2005
5. Naxçıvan Abidələri Ensiklopediyası Naxçıvan-2008

# ОБЗОР СПОРТИВНЫХ КОМПЛЕКСОВ АЗЕРБАЙДЖАНА

**Ибрагимова Айсель**
Университет: Азербайджанский университет архитектуры и строительства
Факультет / Устойчивая урбанизация и региональное планирование
*ayselibragimova09@gmail.com*
БАКУ, АЗЕРБАЙДЖАН

**Реферат.**

В современном обществе спортивные комплексы играют ключевую роль в развитии здорового образа жизни, формировании спортивной культуры и сплочении сообщества. В данной статье проведен обзорный анализ спортивных комплексов с учетом их инфраструктуры, роли в обществе, экономического аспекта, управления и устойчивости, а также тенденций и перспектив развития.

**Ключевые слова:** спорт, спортивный комплекс, инфраструктура, функциональность

Abstract.

In modern society, sports complexes play a key role in the development of a healthy lifestyle, the formation of a sports culture and community cohesion. This article provides an overview analysis of sports complexes, taking into account their infrastructure, role in society, economic aspect, management and sustainability, as well as trends and development prospects.

**Key words:** sports, sports complex, infrastructure, functionality

**Введение.**

В последние десятилетия спортивные комплексы становятся неотъемлемой частью городской инфраструктуры, играя ключевую роль в заботе о здоровье общества и развитии спортивной культуры. Эти многофункциональные объекты не только предоставляют место для занятий спортом, но и являются центрами социальной активности, сплочением сообщества и местом проведения массовых мероприятий. Спортивные комплексы предлагают разнообразные возможности для занятий физическими упражнениями и спортивными мероприятиями, подходящие для всех возрастных групп и уровней физической подготовки. Они обычно включают в себя спортивные залы, бассейны, тренажерные залы, спортивные площадки и площадки для проведения занятий различными видами спорта, такими как футбол, баскетбол, теннис, волейбол и многие другие.

Кроме того, спортивные комплексы часто становятся местом проведения соревнований и турниров по различным видам спорта, привлекая как профессиональных спортсменов, так и любителей. Эти соревнования способствуют развитию спортивной культуры, мотивируя людей к занятиям спортом и привлекая внимание к важности здорового образа жизни.

Более того, спортивные комплексы имеют социальное значение, способствуя формированию дружеских и профессиональных связей, обмену опытом и знаниями, а также созданию благоприятной среды для взаимодействия между различными слоями общества.

Спортивные комплексы могут быть классифицированы по различным критериям, таким как вид спорта, возможности, инфраструктура. Рассмотрим некоторые общие классификации спортивных комплексов:

- по виду спорта: футбольные стадионы, баскетбольные арены, теннисные корты, хоккейные арены, бассейны, легкоатлетические стадионы.

- по размеру и вместимости: малые спортивные объекты: места для спорта в небольших городах или районах; большие спортивные комплексы: крупные объекты с большой вместимостью для проведения крупных соревнований и мероприятий.

- по наличию дополнительных услуг: спортивные комплексы с фитнес-залами и тренажерными залами; спортивные комплексы с ресторанами, кафе и магазинами; спортивные комплексы с конференц-залами и пространствами для проведения мероприятий и конференций.

- по типу покрытия или поверхности: внутренние спортивные комплексы: покрытые помещения для спорта, например, арены или корты; открытые спортивные объекты: под открытым небом, такие как открытые теннисные корты или поля.

- по функциональности: обучающие спортивные комплексы: для тренировок и развития спортивных навыков; соревновательные спортивные комплексы: для организации и проведения соревнований.

- по видам спортивной инфраструктуры: многофункциональные комплексы: предоставляют возможность для различных видов спорта в одном месте; специализированные комплексы: разработанные для конкретного вида спорта и оборудованы соответствующим образом.

**Обзорный анализ спортивных комплексов Азербайджана**

Спортивные комплексы в Азербайджане имеют разнообразие типов и размеров, от малых до крупных объектов, обеспечивающих услуги для различных видов спорта и мероприятий

Рассмотрим некоторые из них.

Стадион имени Гейдара Алиева: Большой стадион для футбольных матчей и других событий.

Бакинский Олимпийский стадион. Этот стадион был построен в 2015 году и был одним из главных объектов во время Европейских игр 2015 года в Баку. Он имеет вместимость около 68 700 зрителей и предназначен для футбольных матчей, концертов и других мероприятий.

"Баку Арена" также построенная для Европейских игр 2015 года, предназначена для соревнований по гребле на байдарках и каноэ. После игр она используется для различных спортивных мероприятий и концертов.

"Комплекс азербайджанского тенниса и национального федерального центра тенниса": Этот комплекс в Баку предлагает современные теннисные корты и инфраструктуру для проведения международных теннисных турниров.

"Стадион "8-й километр": Небольшой стадион в Баку, который обычно используется для футбольных матчей на местном уровне.

"Тренажерный зал Шамахи": Этот тренажерный зал является одним из крупнейших и современных в стране. Он оснащен современными тренажерами и оборудованием для фитнеса и бодибилдинга.

"Спорткомплекс Шахдаг": Находится в городе Ках, это крупный спортивный комплекс, который предлагает множество видов активности, включая плавание, теннис, баскетбол и другие.

"Спорткомплекс Ширван": Этот спортивный комплекс в Нафталане предлагает различные виды услуг, включая плавание, фитнес и баскетбол.

"Олимпийский центр Габала": Находится в городе Габала и включает в себя футбольные поля, теннисные корты, бассейн и другие спортивные объекты.

Спортивный комплекс "Хазар". Этот комплекс в Мингечауре включает в себя футбольное поле, тренажерный зал, бассейн и другие объекты для занятий спортом. Рассмотрим по подробнее этот спорткомплекс. Этот комплекс включает в себя несколько объектов, специально предназначенных для занятий греблей и подготовки спортсменов.

В спортивном комплексе "Хазар" есть специально созданный проточный канал, который используется для тренировок и соревнований по гребли на байдарках. Этот канал обеспечивает спортсменов реалистичными условиями для тренировок, позволяя им улучшать технику и физическую подготовку.

Тренажерный зал и инфраструктура: Комплекс также включает в себя тренажерный зал, где спортсмены могут проводить силовые тренировки и поддерживать форму. Также здесь есть раздевалки, душевые и другая инфраструктура для удобства спортсменов.

В спортивном комплексе "Хазар" есть специализированные байдарки и каноэ, предоставляемые для тренировок и соревнований. Спортсмены могут использовать это оборудование для развития навыков и участия в соревнованиях.





Несмотря на многие преимущества спорткомплекс имет также некоторые недостатки.

Зависимость от доступности объекта: Если спортсмен живет далеко от спортивного комплекса, это может создавать неудобства и затраты на поездки до места тренировок.

Ограниченное время использования: В зависимости от расписания и нагрузки спортивного комплекса, доступ к проточным каналам и оборудованию может быть ограниченным, что может затруднить регулярные тренировки.

Затраты на использование: Возможно, для доступа к спортивному комплексу и использованию его услуг могут потребоваться платежи или абонементы, что может стать финансовым бременем для спортсменов.

Ограниченность возможностей для самостоятельных тренировок: Иногда спортсменам может не хватать свободного доступа к проточным каналам или водоемам для самостоятельных тренировок вне расписания, особенно в зимний период или в неурочные часы.

**Заключение**

В настоящее время спортивные комплексы становятся все более инновационными, внедряя новые технологии для повышения комфорта, безопасности и эффективности тренировок. Они также активно участвуют в программе по сохранению окружающей среды, стремясь к устойчивости и энергоэффективности.

Таким образом, спортивные комплексы играют важную роль в содействии здоровью и благополучию общества, способствуя развитию спортивной культуры и формированию активного образа жизни.

**Список литературы**

"Спортивные сооружения и оборудование" авторы А. Г. Аршинов, А. И. Гончаров, Г. Н. Каримов, А. С. Молоденцев - Эта книга рассматривает вопросы проектирования и классификации спортивных объектов.

"Теория и методика спортивного массового обслуживания" автор А.С. Негодяев - Книга включает в себя разделы о классификации спортивных объектов и их организации для массового обслуживания.

"Организация и управление спортивно-оздоровительным комплексом" авторы В. С. Нестеров, В. А. Смирнов, А. В. Ямщиков - В этой книге можно найти разделы о классификации спортивных комплексов с точки зрения их управления и организации.

"Спортивные сооружения и оборудование: Учебное пособие" авторы В.П. Соломатин, А.П. Мельничук - Это учебное пособие описывает различные типы спортивных объектов, их классификацию и конструктивные особенности.

"Физическая культура: Учебное пособие для студентов педагогических вузов" авторы А. Ф. Волков, Т. В. Полещук - В этом учебнике есть разделы о спортивной инфраструктуре, включая классификацию спортивных объектов.

"Управление физической культурой и спортом" автор А. Ф. Волков - Эта книга включает в себя аспекты управления спортивной инфраструктурой, включая планирование и классификацию спортивных объектов.

https://azerbaijan.az/ru/related-information/167

# TİKİNTİ KOMPLEKSİNİN TƏRKİBİ

***Həşim Həşimli Elxan oğlu, Fəxri Köçərli Azad oğlu***
*Azərbaycan Memarlıq və İnşaat Universiteti*
*Magistratura mərkəzi fakültəsi, Körpülər və avtomobil qurğularının tikintisi ixtisası*
*hesim13@mail.ru, fexri.com@mail.ru*
*Azərbaycan,Bakı*

**Xülasə**

Məqalədə tikinti sənayesi haqqında geniş məlumat verilir, onun həm istehsal, həm də qeyri-istehsal sektorlarında çoxşaxəli xarakteri və əhəmiyyəti vurğulanır. Məqalədə vurğulanan əsas məqamlara maddi istehsal sahələrinin və əsas fondların təkrar istehsalı üçün həyati əhəmiyyət kəsb edən layihə-tədqiqat fəaliyyətini əhatə edən tikinti kompleksinin fənlərarası xarakteri daxildir. Tikinti kompleksi müxtəlif sahələri, o cümlədən tikinti istehsalı, tikinti materiallarının istehsalı, tikinti xidməti nəqliyyatı, logistika, layihə və tədqiqat təşkilatları, elmi müəssisələri əhatə edir.

Məqalədə həmçinin tikinti istehsalının spesifik xüsusiyyətləri, məsələn, istehsal dövrlərinin müddəti, iqlim şəraitinin təsirinə məruz qalan açıq hava işləri, yerli geoloji və hidrogeoloji amillərə uyğunlaşma ehtiyacı müzakirə olunur. Ümumilikdə, məqalə infrastrukturun inkişafı və iqtisadi artımda mühüm rolunu vurğulayaraq tikinti sənayesinin mürəkkəbliyi haqqında dəyərli fikirlər təqdim edir.

**Açar sözlər:** tikinti sənayesi, yenidənqurma, əsaslı tikinti, material

**Summary**

The article provides a broad overview of the construction industry, emphasizing its multifaceted nature and importance in both manufacturing and non-manufacturing sectors. The main points highlighted in the article include the interdisciplinary nature of the construction complex, which includes design-research activities that are vital for the reproduction of material production areas and fixed assets. The construction complex includes various fields, including construction production, production of construction materials, construction service transport, logistics, project and research organizations, and scientific institutions.

The article also discusses the specific features of construction production, such as the duration of production cycles, outdoor works affected by climatic conditions, and the need to adapt to local geological and hydrogeological factors. Overall, the article provides valuable insights into the complexity of the construction industry, highlighting the critical role of infrastructure in development and economic growth.

**Keywords:** construction industry, reconstruction, major construction, material

**Giriş**

Tikinti sənayesi istənilən ölkənin iqtisadiyyatına mühüm töhfə verir. Tikinti kompleksinin tərkibini anlamaq siyasətçilərə, iqtisadçılara və investorlara sektorun ümumi sağlamlığını və onun ÜDM-ə verdiyi töhfəni ölçməyə kömək edir.

Tikinti sektorunda resurs istehlakı, tullantıların istehsalı və karbon emissiyaları da daxil olmaqla əhəmiyyətli ekoloji iz var. Tikinti kompleksinin tərkibini başa düşməklə, maraqlı tərəflər davamlılıq təcrübələrində təkmilləşdirmə üçün sahələri müəyyən edə və ekoloji cəhətdən təmiz tikinti üsulları və materiallarını təşviq edə bilərlər.

Tikinti sektoru mühəndislər, memarlar, texniki işçilər, ixtisaslı işçilər və köməkçi heyət daxil olmaqla müxtəlif işçi qüvvəsinə məşğulluq imkanları təqdim edir. Tikinti kompleksinin tərkibini anlamaq siyasətçilərə sənayenin inkişaf edən ehtiyaclarını ödəmək üçün işçi qüvvəsinin inkişafı və təlimi üçün strategiyaları həyata keçirməyə imkan verir.

Tikinti layihələri icmaların həyat keyfiyyətinə, əlçatanlığına və estetikasına təsir edərək tikilmiş ətraf mühiti formalaşdırır. Tikinti kompleksinin tərkibi haqqında biliklər maraqlı tərəflərə sosial bərabərlik problemlərini həll etməyə, təhlükəsizlik standartlarını təmin etməyə və şəhərsalma layihələrində inklüzivliyi təşviq etməyə imkan verir.

Təbii materiallar azdır, çünki təbii qum və çınqıl kimi yüksək keyfiyyətli asfalt aqreqatlarının mövcudluğu bəzi ərazilərdə məhduddur, bu da daha yüksək nəqliyyat xərcləri və ətraf mühitə daha çox təsir göstərir. Təkrar emal edilmiş tullantıların və texnologiyaların inkişafı və tətbiqi ilə bu problemlər həll edilə bilər və daha davamlı, ekoloji cəhətdən təmiz nəqliyyat sistemi yaradıla bilər.

Beynəlxalq Yol Federasiyası və Dünya Yol Statistikasının 2017-ci il hesabatına əsasən, dünya yol şəbəkələrinin ümumi uzunluğu 32 milyon kilometrdir. Bununla belə, 2050-ci ilə qədər 3 ilə 4,7 milyon kilometr arasında yeni avtomobil yollarının tikiləcəyini proqnozlaşdırırlar. Bu, karbon emissiyalarını azaltmaq və resurs şüurlu inkişafı təşviq etmək üçün yol tikintisi və təmirində davamlılıq məsələlərinin həllinin vacibliyini vurğulanır.

Nəqliyyat vasitələrinin və yolların layihələndirilməsi mərhələsində ətraf mühit amillərini nəzərə almaq üçün tətbiq oluna bilən bəzi yeni texnologiyalara aşağıdakılar daxildir:

1. Aşağı karbon izi olan materialların istifadəsi: karbon nanoborucuqları, bioloji parçalana bilən polimer kompozitləri və ənənəvi tikinti materiallarına digər ekoloji cəhətdən təmiz alternativlər kimi innovativ materialların işlənib hazırlanması və tətbiqi.
2. Yaşıl tikinti texnologiyalarının tətbiqi: yaşıl tikinti metodlarının istifadəsi, məsələn, tikinti və sökülmə tullantılarının təkrar emalı, enerjiyə qənaət edən istilik və soyutma sistemləri, günəş panelləri və s.
3. Alternativ enerji mənbələrindən istifadə: külək stansiyaları, günəş panelləri, su elektrik stansiyaları və digər bərpa olunan enerji mənbələri kimi alternativ enerji mənbələrinin istehsalı və istifadəsi texnologiyalarının həyata keçirilməsi vasitəsilə yol örtüklərinin istehsalı.
4. Süni intellekt və məlumat analitikasının tətbiqi: Çirkləndirici emissiyaların azaldılması və enerji səmərəliliyinin optimallaşdırılması kimi ətraf mühit parametrlərinə əsaslanan nəqliyyat sistemlərinin dizaynını optimallaşdırmaq üçün nəqliyyat axının öyrənməsi və məlumat analitikası üsullarından istifadə.

Bu və digər texnologiyalar nəqliyyat sistemlərinin və yolların ekoloji dayanıqlığını əhəmiyyətli dərəcədə yaxşılaşdırmaq, ətraf mühitə mənfi təsirləri azaltmaq və daha yaşıl və daha dayanıqlı nəqliyyat infrastrukturunun yaradılmasına kömək etmək potensialına malikdir.

Ətraf mühit mülahizələrinin əsas rol oynadığı layihələrin bəzi real nümunələri:

**Şəkil 1. "**Rooftop Solar" sistemi: Günəş enerjisinin nəqliyyat infrastruksurunda istifadəsi.






Dünyanın bir çox şəhərləri və şirkətləri nəqliyyat yollarında və dayanacaqlarda günəş panellərinin quraşdırılmasına fəal şəkildə sərmayə qoyurlar (şəkil 1). Məsələn, Parisin velosiped icarəsi sistemini nümunə gətirmək olar, burada, elektro-velosipedlərdən istifadəni yaymaq üçün enerji doldurma sistemini təkmilləşdirərək günəş panelləri ilə təchizata üstünlük gətirmişdir. Eləcə də, avtomobil yollarının tikintisi zamanı yol örtüyünün səthinə günəş panellərinin quraşdırılması təcrübəsi də, gələcəkdə ekoloji cəhətdən təmiz enerjinin alınmasına kömək olacaqdır.



**Şəkil 2.** Vəhşi heyvanlar üçün ekoloji təhlizlərin layihələndirilməsi və tikintisi

Müxtəlif ölkələrdə vəhşi heyvanların nəqliyyat marşrutlarını təhlükəsiz keçməsinə imkan verən ekoloji dəhlizlər yaradılır. Məsələn, Rusiyada M-3 şossesi üzərində (şəkil 2) ayı və digər heyvanların populyasiyasını qorumağa kömək edən "Ekodukt" tikilmişdir.

Elektrikli nəqliyyat vasitələrinə keçid: Dünyanın bir çox şəhərləri şarj infrastrukturu yaratmaqla və elektrikli nəqliyyat vasitələri sahibləri üçün stimullar tətbiq etməklə elektrikli nəqliyyat vasitələrinə keçidi təşviq edir. Məsələn, Paris 2030-cu ilə qədər daxili yanma mühərrikli avtomobillərin istifadəsini tamamilə dayandırmağı planlaşdırır.

Bu layihələr nəqliyyat vasitələrinin və yolların layihələndirilməsi və tikintisi zamanı ekoloji amillərin nəzərə alınmasının vacibliyini nümayiş etdirir.

Nəqliyyat vasitələrinin və yolların layihələndirilməsi mərhələsində ekoloji amilin nəzərə alınması infrastrukturun keyfiyyətinin yaxşılaşdırılması, ətraf mühitə mənfi təsirin azaldılması və şəhər və regional nəqliyyat sistemlərinin dayanıqlığının artırılması üçün böyük perspektiv və potensiala malikdir. Aşağıda bu metodun bəzi əsas perspektivləri verilmişdir:

• Emissiyaların və çirklənmənin azaldılması: Yolların və nəqliyyat vasitələrinin layihələndirilməsində ekoloji cəhətdən səmərəli həllərin tətbiqi zərərli maddələrin emissiyalarını və ətraf mühitin çirklənməsini azalda bilər. Məsələn, ekoloji cəhətdən təmiz yol səthlərinin istifadəsi, mühərrik sistemlərində filtrlərin quraşdırılması və magistral yolların ətrafında yaşıllıqların yaradılması havanın keyfiyyətini yaxşılaşdırmağa və səs-küy səviyyəsini azaltmağa kömək edir.

• Enerji Effektivliyinin Təkmilləşdirilməsi: Nəqliyyat infrastrukturunun ətraf mühiti nəzərə alaraq layihələndirilməsi daha çox enerjiyə qənaət edən səyahət sistemlərinə imkan verir. Bərpa olunan enerji mənbələrinə əsaslanan elektrik nəqliyyat vasitələri, hibrid avtomobillər və ictimai nəqliyyat kimi innovativ texnologiyaların tətbiqi yanacaq sərfiyyatını azaltmağa və istixana qazı emissiyalarını azaltmağa kömək edir.

• Davamlı şəhər mühitlərinin yaradılması: Ekoloji mülahizələrlə nəqliyyat infrastrukturunun layihələndirilməsi sakinlər üçün rahat yaşayış və yüksək həyat keyfiyyətini təmin edə bilən davamlı şəhər mühitlərinin yaradılmasına kömək edir. Velosiped və piyada yollarının inkişafı, ictimai yerlərin və istirahət zonalarının yaradılması, eləcə də rahat və əlçatan ictimai nəqliyyatın təşkili şəhər mühitinin yaxşılaşdırılmasına və avtomobildən asılılığın azalmasına kömək edir.

• İnvestisiyaların cəlb edilməsi və innovasiyaların inkişafı: Nəqliyyat infrastrukturu sahəsində ekoloji yönümlü layihələrin hazırlanması və həyata keçirilməsi investisiya və innovasiyaların inkişafı üçün yeni imkanlar açır. İnvestorlar və şirkətlər yaşıl iqtisadiyyatın inkişafına, nəqliyyat və infrastruktur sektorunda yeni iş yerlərinin yaradılmasına töhfə verən ekoloji cəhətdən davamlı layihələrə getdikcə daha çox diqqət yetirirlər.

## 3. NƏTİCƏ

Beləliklə, nəqliyyat vasitələrinin və yolların layihələndirilməsi mərhələsində ekoloji amilin nəzərə alınması daha dayanıqlı, enerjiyə qənaətcil və rahat şəhər mühitinin yaradılması, həyat keyfiyyətinin yaxşılaşdırılması və ətraf mühitin mühafizəsi üçün böyük potensiala malikdir. Qeyd edilmiş üsullardan istifadə, eləcə də, innovativ texnologiyaların köməkliyi ilə yeni üsulların təyin edilməsi bu sahə üzrə qısa zamanda yüksək nəticələr əldə etməyə kömək olacaqdır.

**ƏDƏBİYYAT SİYAHISI**

1. Y. M. Piriyev, Ş. H. Həsənov, N. M. Qaraisayev. (2009). Avtomobil yollarının nəqliyyat-istismar göstəricilərinin yüksəldilməsi. (359 səhifə)
2. Бабков В.Ф, Андреев О.В. 1987. Проектирование автомобильных дорог (783 səhifə)
3. Рекомендации по учету требований по охране окружающей среды при проектировании автомобильных дорог и мостовых переходов, Москва 1995.
4. A Comprehensive Overview of the Utilization of Recycled Waste Materials and Technologies in Asphalt Pavements: Towards Environmental and Sustainable Low-Carbon Roads. 2023.
5. https://dzen.ru/a/Xx6gR_KvLWzEytbS
6. https://www.solarreviews.com/blog/all-about-solar-roadways

# HUMUSUN ANTROPOGEN TƏSIRDƏ DƏYIŞMƏSININ COĞRAFIYA İNFORMASIYA SISTEMLƏRININ TƏTBIQI ILƏ ÖYRƏNILMƏSI STUDYING THE CHANGE OF HUMS UNDER ANTHROPOGENIC IMPACT USING GEOGRAPHIC INFORMATION SYSTEMS

**AĞABƏY IBRAHIMLI**
Bakı Mühəndislik Universiteti
Memarlıq və İnşaat Fakültəsi
*ibrahimliagabey@gmail.com*
XIRDALAN, AZƏRBAYCAN

**XÜLASƏ**

Məqalədə Xaçmaz rayonu ərəblər kəndində yerləşən 600 ha quru-çöl ərazisində yerləşən kompleks dağ-şabalıdı torpaqlarının humus profilləri təhlil edilir. Tədqiqat göstərdi ki, humus profilinin xüsusiyyətləri həm dərinlik aspektləri, həm də sahəvi mövqe ilə müəyyən edilir. Humus profilləri torpağın morfologiyasında ifadə edilməsə belə, torpağın əmələ gəlməsi və fəaliyyətinin bütün ekoloji dəyişikliklərini özündə əks etdirir. Tədqiqat zamanı əldə edilən materiallar dərinlik qrunt davranışının uzunmüddətli monitorinqi və dəyişən mühitdə yerli torpaq dəyişkənliyinin aşkar edilməsi üçün əsas ola bilər. Torpaqların dərindən şumlanması və yumşaldılması su və qidalanma rejimini yaxşılaşdırır, arid əkinçilik üçün yaxşı şərait yaradır. 30 sm-ə qədər dərin payız şumlanması ilə çöküntü və yaz ərimə sularının yığılması yazda utilizasiya ilə müqayisədə 1200-1500 $m^3$/ha daha çox olur. Dərin şumlama suvarma suyunun udulmasını təmin edir, suvarma zamanı axıntıları aradan qaldırır və əlavə suvarma tələb edən məhsulların sayını azaldır. Böyük miqyasda torpağın üzvi maddəsi haqqında məlumatın olmamasının ən çox rast gəlinən səbəblərindən biri odur ki, torpaq nümunələrinin götürülməsi onun laboratoriyada müəyyən edilməsi vaxt aparan və baha başa gələ bilər. Xoşbəxtlikdən, məsafədən zondlama Coğrafi İnformasiya Sistemlərinin (CİS) istifadəsi ilə birlikdə müxtəlif biofiziki amillərin müəyyən edilməsinə və səciyyələndirilməsinə, onların təhlilinə və aşağı qiymətə monitorinqinə imkan verən güclü resurs hesab olunur. Bu alətlər və proqnozlaşdırıcı modelləşdirmə məkan-zaman məlumatı yaratmaq və torpaq və bitki örtüyünün nümunələrini, xassələrini və proseslərini təsvir etmək üçün səmərəli alternativ üsullar hesab olunur.

**ABSTRACT**

The article analyzes the humus profiles of the complex mountain-chestnut soils located in the 600 ha dry-desert area located in the village of Arabler, Khachmaz region. The study showed that the characteristics of the humus profile are determined by both depth aspects and areal position. Humus profiles reflect all environmental changes in soil formation and functioning, even if not expressed in soil morphology. The materials obtained during the research can be the basis for long-term monitoring of deep soil behavior and detection of local soil variability in a changing environment. Deep plowing

and softening of the soil improves the water and nutrient regime, creating good conditions for dry farming. With deep autumn plowing up to 30 cm, accumulation of sediment and spring melt water is 1200-1500 $m^3$/ha more than with disposal in spring. Deep plowing ensures absorption of irrigation water, eliminates runoff during irrigation and reduces the number of crops that require additional irrigation. One of the most common reasons for the lack of data on soil organic matter on a large scale is that soil sampling can be time-consuming and expensive to determine in the laboratory. Fortunately, remote sensing, together with the use of Geographic Information Systems (GIS), is considered a powerful resource that enables the identification and characterization of various biophysical factors, their analysis and low-cost monitoring. These tools and predictive modeling are considered effective alternative methods for generating spatiotemporal information and describing soil and vegetation patterns, properties, and processes.

**AÇAR SÖZLƏR: Humus, Coğrafiya İnformasiya Sistemləri, Qida maddəsi, İnterpolyasiya, Torpaq analizi, Arcgiz**

**KEYWORDS: HUMMUS, Geographic Information Systems, Nutrient, Interpolation, Soil analysis, Arcgis**

## GIRIŞ

Humus torpağın üzvi maddələrinin deqradasiyasının son mərhələsidir. Humus torpaqda bitki (yarpaq və saman) və heyvan maddələri (əsasən qurdlar və həşəratlar) parçalandıqda əmələ gəlir. Humus torpağın münbitliyini, suyun saxlanmasını, kation mübadiləsi qabiliyyətini, qida maddələrinin mövcudluğunu və torpağın sağlamlığını yaxşılaşdırır. Əslində, bir çox torpaqşünaslar humusu bitkilər tərəfindən istifadə olunan qida maddələri üçün kiler və ya anbar evi adlandırırlar.

Kənd təsərrüfatı torpaqlarında humusun miqdarı 2-10% arasında dəyişir. Ən azı 2-4% humus olan torpaq sağlam hesab olunur. Humusun əhəmiyyətinə baxmayaraq torpaq eroziyası, urbanizasiya və əkinçilik təcrübələri (becərmə kimi) kimi amillərə görə torpaq humusunun miqdarı bütün dünyada azalır.

Humus bitki sağlamlığı üçün beş mühüm rola xidmət edir. 1.Torpağın strukturunu yaxşılaşdırmaq və eroziyanı azaltmaq-Humusun əsas faydalarından biri onun torpaq strukturunu yaxşılaşdırmaq qabiliyyətidir. Humus, torpaq hissəciklərinin daha böyük aqreqatlarını yaratmağa kömək edən bir bağlayıcı maddə kimi çıxış edir. Bundan əlavə, torpaq hissəciklərini bir-birinə bağlayaraq torpaq eroziyasını azaldır. 2.Qida maddələrinin saxlanması və sərbəst buraxılması-Humus, həmçinin azot, fosfor və kalium da daxil olmaqla bir sıra qida maddələrini ehtiva edir ki, onlar parçalanarkən zamanla yavaş-yavaş ayrılırlar. Qida maddələrinin yavaş-yavaş sərbəst buraxılması bitkilərin böyümək mövsümü boyunca ehtiyac duyduqları qida maddələrinin davamlı şəkildə təmin edilməsinə kömək edir. 3.Suyun saxlanması və sərbəst buraxılması-Humus süngər kimi fəaliyyət göstərə bilər, suyu udur və bitkinin quru dövrlərdə istifadə etməsi üçün torpaqda saxlaya bilər. Tərkibində humus olan torpağa su əlavə edildikdə suyun bir hissəsi humus hissəciklərinin səthində, qalan hissəsi isə hissəciklər arasındakı məsamə boşluqlarında saxlanılır. Torpaq quruduqca, humusda saxlanılan su yavaş-yavaş ətrafdakı torpağa buraxılır və bitki kökləri üçün davamlı nəm axını təmin edir. 4.Karbonun ayrılması-Bundan əlavə, humus, karbonu atmosferdən tutaraq iqlim dəyişikliyinin təsirlərini yumşaldaraq, torpaqda karbonun saxlanmasının vacib mənbəyidir. 5.Faydalı mikroblar üçün yaşayış yeri kimi xidmət edir-Humus torpağın sağlamlığında və qida maddələrinin dövriyyəsində əsas rol oynayan bir sıra faydalı mikrobların yaşayış yeridir. (Soil organik carbon the hidden potential. Food and Agriculture organization of the United Nations-Rome. 2017).

Coğrafi informasiya sistemləri həyatın müxtəlif sahələrində, o cümlədən hərbi, mülki, mühəndislik və kənd təsərrüfatı və bunların bağlı olduğu sahələrdə özünü göstərir. Coğrafi informasiya sistemləri məlumatları skan edildikdən sonra tədqiqat sahəsi üçün məlumatların toplanması və daxil edilməsində, sonra isə emal olunmasından təşkil olunur. Hazırda coğrafi informasiya sistemləri üsullarından, xüsusən də sorğulardan torpağın ekoloji fiziki və kimyəvi xüsusiyyətlərinə əsaslanaraq torpaqların təsnifatının aparılmasında geniş istifadə olunur. Torpaq səthi materiallarının xüsusiyyətlərini əks etdirərək torpaq və torpaq məlumatlarını ekoloji göstəricilərinə əsaslanaraq təhlil aparılır.

(https://www.sciencedirect.com/science/article/abs/pii/S034181622300070X)

Torpağın spektral xassələri və alt bölmələri ilə əlaqədar olaraq, bu tədqiqatda təsvir emalından istifadə edilərək torpaq növlərinin paylanması və torpaqdan istifadə arasında sıx əlaqəni asanlıqla aşkar edilə bilər. Coğrafi informasiya sistemləri torpağın qida maddələrini göstərən torpaq münbitlik xəritələrini çəkmək üçün istifadə olunub və buna uyğun olaraq həmin torpaqlar üçün lazımi münbitlik tövsiyələrini vermək mümkündür. Torpaq məkan məlumat xəritələri ilə torpağın qida dəyişkənliyini simulyasiya edən, torpağın quraqlığa davamlılığında təsirli xüsusiyyətlərdən istifadə edərək quraqlığa həssas torpaqların xəritəsini hazırlamaq və sonra bu xassələri CİS əsas modelində araşdırmaq mümkündür.

Tədqiqat ərazisində torpaqların su keçirmə qabiliyyəti ilə müxtəlif tipli amillər orijinal materiallar, toxumalar, torpaq tərkibi baxımından torpağın müxtəlif genetik xüsusiyyətləri, üzvi maddələr və yeraltı suların dərinliyi, torpaq landşaftına imsan təsiri faktoru nəticəsində təsnif edərək yeni torpaq təsnifatı sistemini təklif etmək mümkündür. Digər tərəfdən torpaq eroziyası və ya deqradasiyası CİS-dən istifadə etməklə izlənilə bilər. Su toplayan və orta illik torpaq itkisi nisbətinin olduğu eroziyaya meylli bir ərazi olan tədqiqat sahəsi coğrafi informasiya sistemlərindən istifadə etməklə ekoloji baxımdan dəyişmələri izləmək mümkündür. (https://grdc.com.au/resources-and-publications/grdc-update-papers/tab-content/grdc-update-papers/2014/08/soil-organic-matter)

Bu gün torpağın ekoloji xassələrinin məkanda bölüşdürülməsi daha geniş istifadə və onlardan istifadənin prinsipləri və metodoloji yanaşmaları haqqında peşəkar bilik tələb edir. Düzgün modelləşdirmə və proqnozlaşdırma üsulu torpağın ekoloji xassələrinin öyrənilən göstəricilərinin inkişaf tendensiyasını tez və etibarlı qiymətləndirməyə imkan verir. Odur ki, rasional idarəetmə qərarlarının qəbul edilməsi üçün aqroekoloji monitorinq sistemində məlumatların toplanması, tədqiqi, modelləşdirilməsi və proqnozlaşdırılması üçün müvafiq müasir texnika, metod və vasitələrdən istifadə etmək vacibdir.Torpağın aqrokimyəvi xüsusiyyətlərinin məkan paylanmasını bilmək, karbon balansını hesablayarkən gübrə və ehtiyatların qiymətləndirilməsi xərclərini əhəmiyyətli dərəcədə azalda bilər.

**TƏDQIQAT METODU**

Torpaq analizi iki kateqoriyada aparıla bilən bir analiz növüdür: ətraf mühit və kənd təsərrüfatı. Ətraf mühit qanunvericiliyində torpağın çirklənməsi baxımından qiymətləndirmə aparılarkən, kənd təsərrüfatı torpaqlarının təhlilində məhsuldarlıq araşdırmaları aparılır.

Ətraf mühitin torpağın çirklənməsini aşkar etməklə, zavod sahələrinin alınmasından sonra yarana biləcək ciddi müalicə və ya zərərsizləşdirmə xərclərinin qarşısı alına bilər və çirklənmiş sahələr üçün qiymətlərdə endirimlər edilə bilər. Bundan əlavə, ətraf mühitin torpağın çirklənməsini araşdırmaq üçün qanunvericilik çərçivəsində torpaq analizi tələb oluna bilər. Ətraf mühitin torpaqlarının analizinin ikinci istiqaməti torpaqda olan orqanik madələrin dəyişim dinamikasını izləmək.

Kənd təsərrüfatında torpaq analizinin məqsədi torpaqda bitkinin xeyrinə gübrənin növünü və miqdarını müəyyən etməkdir. Torpaqdan yaxşı məhsul əldə etmək, yüksək keyfiyyətli və yüksək məhsuldarlıq təmin etmək üçün düzgün gübrələmə lazımdır. Düzgün gübrələmə etmək üçün torpaq analizi tələb olunur. Torpaq analizi yolu ilə torpağın növünü və miqdarını müəyyən etməklə, gübrələrin düzgün və həddindən artıq istifadəsinin qarşısı alına bilər. Bununla da gübrələrdən düzgün istifadə edilməməsi nəticəsində yaranan ətraf mühitin çirklənməsinin və quraqlığın qarşısı alınır. (Q Məmədov. V Quliyev. 2002).

Torpağın təhlili qida tərkibi, turşuluq və hissəcik ölçüsü kimi həm kimyəvi, həm də fiziki torpaq şəraitinin diaqnozu üçün vacib bir üsuldur. Torpağın əhəng ehtiyacını, nə qədər və hansı növ əhəngdaşı istifadə edilməli olduğunu, torpaqda hansı gübrələrin istifadə edilməli olduğunu qiymətləndirir. Gübrələmə yolu ilə torpaqda çatışmayan və bitkilər üçün zəruri olan qida maddələri təmin edilir. Ətraf mühitin lazımsız gübrələmədən qorunmasını təmin edərkən yüksək məhsuldarlığı təmin etmək üçün **torpağın təhlili lazımdır.** Bundan əlavə, münbit torpaq yaratmaq və bitkilər üçün ən yaxşı şəraiti təmin etmək üçün torpaq analizi lazımdır. (https://www.mdpi.com/1999-4907/14/3/539)

Torpağın üzvi maddəsini proqnozlarında iqlim faktorları da mühüm rol oynamışdır. Bu mənada yağıntılar torpağın üzvi maddəsini tərkibindəki dəyişiklikləri izah edən üçüncü amil idi; iqlim amilləri bitki örtüyünün növünə, böyüməsinə və mikrob aktivliyinə əhəmiyyətli dərəcədə təsir göstərdiyi üçün üzvi maddələrlə sıx bağlıdır. Torpağın üzvi maddəsini torpağın üzvi karbonla ilə müqayisədə daha çox məkan dəyişkənliyi və ətraf mühit dəyişənləri ilə əlaqələrdən daha çox asılılıq nümayiş etdirir.

Tədqiqat ərazisi kimi Xaçmaz rayonunun Ərəblər kəndi ərazisində yerləşən 600 ha ərazi götürülmüşdür. Ərazinin iqlimi Yayı isti və quraq, qışı mülayim və yağıntılı keşən yarımsəhra və quru çöl iqlimi hakimdir. Landşaft çəhətdən ərazidə yarımsəhra landşaftı yayılmışdır. Ərazi kənd təsərüfatında əkinçilik üçün istifadə olinur. Buda ərazinin antrapagen təsirə məruz qalmasına şərait yaradır. Bu təsirin nə dərəcə intensiv və qalıcı olmasını öyrənmək üşün 60 nğqtədən torpaq nümunələri götürülmüşdür. Nümunələr 2 qatdan 0-30 sm və 30-60 sm aralığından götürülmüşdür. Burda əsas məqsəd 0-30 sm aralığında təsirlə 30-60 sm aralığında təsirin müqayisə edilməsidir.

***Cədvəl 1**. Tədqiqat ərazisində humus miqdarı(Xaçmaz rayonu)*

| Humus Miqdarı (Xaçmaz ray) | | | | | |
|---|---|---|---|---|---|
| Tədqiqat Nöqtəsi | Metod | Ölçü Vahidi | Norma | Nəticə(0-30sm) | Nəticə(30-60sm) |
| 1 | Walkley-Black | % | 2-3 | 3,02 | 1.74 |
| 2 | Walkley-Black | % | 2-3 | 2,9 | 1.8 |
| 3 | Walkley-Black | % | 2-3 | 2,87 | 2.44 |
| 4 | Walkley-Black | % | 2-3 | 2,83 | 2.83 |
| 5 | Walkley-Black | % | 2-3 | 3,25 | 1.8 |
| 6 | Walkley-Black | % | 2-3 | 2,54 | 3.01 |
| 7 | Walkley-Black | % | 2-3 | 2,99 | 2.03 |
| 8 | Walkley-Black | % | 2-3 | 2,7 | 2.09 |
| 9 | Walkley-Black | % | 2-3 | 2,64 | 2.17 |
| 10 | Walkley-Black | % | 2-3 | 2,52 | 1.74 |
| 11 | Walkley-Black | % | 2-3 | 3,02 | 2.14 |
| 12 | Walkley-Black | % | 2-3 | 3,05 | 1.91 |
| 13 | Walkley-Black | % | 2-3 | 3,07 | 2.14 |
| 14 | Walkley-Black | % | 2-3 | 2,5 | 2.17 |
| 15 | Walkley-Black | % | 2-3 | 2,93 | 1.74 |
| 16 | Walkley-Black | % | 2-3 | 2,99 | 1.88 |
| 17 | Walkley-Black | % | 2-3 | 2,93 | 1.74 |
| 18 | Walkley-Black | % | 2-3 | 3,05 | 2.99 |
| 19 | Walkley-Black | % | 2-3 | 3,05 | 2.26 |
| 20 | Walkley-Black | % | 2-3 | 3,54 | 2.96 |
| 21 | Walkley-Black | % | 2-3 | 1,02 | 1.74 |
| 22 | Walkley-Black | % | 2-3 | 2,26 | 1.8 |
| 23 | Walkley-Black | % | 2-3 | 2,75 | 2.17 |
| 24 | Walkley-Black | % | 2-3 | 3,48 | 1.24 |
| 25 | Walkley-Black | % | 2-3 | 3,05 | 2.05 |
| 26 | Walkley-Black | % | 2-3 | 3,05 | 2.26 |
| 27 | Walkley-Black | % | 2-3 | 2,99 | 2.26 |
| 28 | Walkley-Black | % | 2-3 | 2,17 | 1.8 |
| 29 | Walkley-Black | % | 2-3 | 2,32 | 1.8 |
| 30 | Walkley-Black | % | 2-3 | 2,74 | 2.02 |
| 31 | Walkley-Black | % | 2-3 | 2,43 | 1.24 |
| 32 | Walkley-Black | % | 2-3 | 1,65 | 2.32 |
| 33 | Walkley-Black | % | 2-3 | 2,32 | 1.74 |
| 34 | Walkley-Black | % | 2-3 | 2,38 | 1.65 |
| 35 | Walkley-Black | % | 2-3 | 2,39 | 1.66 |
| 36 | Walkley-Black | % | 2-3 | 2,61 | 1.74 |
| 37 | Walkley-Black | % | 2-3 | 2,03 | 1.56 |
| 38 | Walkley-Black | % | 2-3 | 3,34 | 1.66 |
| 39 | Walkley-Black | % | 2-3 | 2,38 | 1.74 |
| 40 | Walkley-Black | % | 2-3 | 2,32 | 1.59 |
| 41 | Walkley-Black | % | 2-3 | 2,39 | 1.59 |
| 42 | Walkley-Black | % | 2-3 | 2,39 | 1.45 |
| 43 | Walkley-Black | % | 2-3 | 2,3 | 1.83 |
| 44 | Walkley-Black | % | 2-3 | 2,71 | 2.16 |
| 45 | Walkley-Black | % | 2-3 | 2,52 | 2.52 |
| 46 | Walkley-Black | % | 2-3 | 2,38 | 1.52 |
| 47 | Walkley-Black | % | 2-3 | 2,9 | 1.88 |

| | | | | | |
|---|---|---|---|---|---|
| 48 | Walkley-Black | % | 2-3 | 1,12 | 2.14 |
| 49 | Walkley-Black | % | 2-3 | 1,96 | 2.15 |
| 50 | Walkley-Black | % | 2-3 | 2,7 | 2.16 |
| 51 | Walkley-Black | % | 2-3 | 2,38 | 1.71 |
| 52 | Walkley-Black | % | 2-3 | 3,34 | 2.12 |
| 53 | Walkley-Black | % | 2-3 | 2,38 | 2.38 |
| 54 | Walkley-Black | % | 2-3 | 2,7 | 2.17 |
| 55 | Walkley-Black | % | 2-3 | 2,89 | 2.31 |
| 56 | Walkley-Black | % | 2-3 | 3,13 | 2.23 |
| 57 | Walkley-Black | % | 2-3 | 3,7 | 2.18 |
| 58 | Walkley-Black | % | 2-3 | 3,1 | 2.49 |
| 59 | Walkley-Black | % | 2-3 | 3,63 | 3.36 |
| 60 | Walkley-Black | % | 2-3 | 3,13 | 2.14 |

Cədvəl 1-də ərazidən götürülmüş 60 nöqtənin laboratoriya analiz nəticəsi verilmişdir. Humus ehtiyatı 2 təbəqə əsasında verilmişdir. Birinci 0-30 sm-lik təbəqədə humus ehtiyatı norma daxilindədir. İki nöqtədən götürülmüş humus ehtiyyatı normadan aşağıdır. Buna səbəb həmin ərazinin karbonatlı süxurların çox olmasıdır. İkinci 30-60 sm-lik təbəqədə humus ehtiyatı çoxluqla norma aşağısındadır. Buna səbəb ərazinin torpaq tipində süzülmə prosesi intensiv gedir. Buna səbəb əkinçilik altında ərazinin intensiv suvarılmasıdır.




**Şəkil 1**. Tədqiqat ərazisində humusun yayılması (0-30sm)

Coğrafi informasiya sistemlərinin tərkib hissəsi olan Arcgis proqram təminatı ilə hazırlanmış xəritə humusun 0-30 sm-də yayılma intensivliyini göstərir. İnterpolyasiya metodu ilə hazırlanmış xəritədə 60 nöqtədən alınan məlumatlar əsasında humusun yayılmasını izləmək olar. İnterpolyasiya metodu ilə yaradılmış xəritədə 7 ayrıcı humus miqdarı götürülmüşdür. Normadan aşağı 3, norma daxilində 4 və normadan yuxarı 2 kəmiyyət götürülmüşdür. Normadan aşağı humus miqdarı əsasən tədqiqat ərazisinin şimal və şimal-şərq hissəsində müşahidə olunur.

İnterpolyasiya alətləri seçilmiş nöqtə dəyərlərindən davamlı (və ya proqnozlaşdırma) səth yaradır. Bir fenomenin hündürlüyünü, konsentrasiyasını və ya miqyasını ölçmək üçün tədqiqat sahəsindəki hər

yerə baş çəkmək adətən çətin və ya bahalıdır. Bunun əvəzinə siz hadisəni strateji cəhətdən səpələnmiş nümunə yerlərində ölçə bilərsiniz və proqnozlaşdırılan dəyərlər bütün digər yerlərə təyin edilə bilər. Giriş nöqtələri ya təsadüfi, ya da müntəzəm olaraq yerləşdirilə və ya seçmə sxeminə əsaslana bilər.

Raster verilənlər toplusunun davamlı səth təsviri hündürlük, konsentrasiya və ya böyüklük (məsələn, yüksəklik, turşuluq və ya səs-küy səviyyəsi) kimi bəzi ölçüləri təmsil edir. Səthi interpolyasiya alətləri, yerdə ölçmə aparılıb-alınmamasından asılı olmayaraq, çıxış rastr verilənlər bazasındakı bütün yerlər üçün nümunə ölçmələrindən proqnozlar verir.

Hər bir yer üçün proqnoz əldə etməyin müxtəlif yolları var; hər bir üsul bir model kimi istinad edilir. Hər bir modeldə verilənlərə dair müxtəlif fərziyyələr mövcuddur və müəyyən modellər konkret məlumatlar üçün daha uyğundur – məsələn, bir model yerli dəyişkənliyi digərindən daha yaxşı hesablaya bilər. Hər bir model müxtəlif hesablamalardan istifadə edərək proqnozlar verir.

İnterpolyasiya vasitələri ümumiyyətlə deterministik və geostatistik üsullara bölünür.

Deterministik interpolyasiya üsulları ətraf ölçülmüş dəyərlərə və nəticədə yaranan səthin hamarlığını təyin edən müəyyən riyazi düsturlara əsaslanaraq yerlərə qiymətlər təyin edir.

Deterministik üsullara IDW (tərs məsafənin çəkisi), Təbii Qonşu , Trend və Spline daxildir .

Geostatistik üsullar avtokorrelyasiya (ölçülmüş nöqtələr arasında statistik əlaqə) daxil olan statistik modellərə əsaslanır. Buna görə də, geostatistik üsullar təkcə proqnozlaşdırma səthi yaratmaq qabiliyyətinə malik deyil, həm də proqnozların dəqiqliyi və ya düzgünlüyünün müəyyən ölçülərini təmin edir.




***Şəkil 2**.Tədqiqat ərazisində humusun yayılması (30-60sm)*

Şəkil 2-də humusun 30-60 sm yayılma intensivliyini interpolyasiya metodu ilə hazırlanmış xəitədə göstərilmişdir. Burda 9 ayrıcı sərhəd götürülmüşdür. Xəritədən də göründüyü kimi 30-60 sm-lik təbəqənin çox hissəsində humusun miqdarı normadan aşağıdır. Buna əsas səbəb intensiv əkinçilik altında suvarma suyunun humusu aşağı qatlara yumasıdır. Burda əsas rol torpaq tipidir. Toqpağın üzvi maddəsinin proqnozlarında iqlim faktorları da mühüm rol oynamışdır. Bu mənada yağıntılar torpağın üzvi maddəsinin tərkibindəki dəyişiklikləri izah edən üçüncü amil idi; iqlim amilləri bitki örtüyünün növünə, böyüməsinə və mikrob aktivliyinə əhəmiyyətli dərəcədə təsir göstərdiyi üçün üzvi maddələrlə sıx bağlıdır.

**NƏTICƏ**

Bu tədqiqatda bildirilən məlumat Xaçmaz rayonu Ərəblər kəndi sahəsində yerləşən tədqiqat sahəsində humusun paylanmasını və CİS vasitəsilə yaradılan topoqrafiya, iqlim və bitki örtüyü ilə bağlı ətraf mühit dəyişənlərinin səciyyələndirilməsini əks etdirir. Bu məlumatlar torpağın üzvi maddələrin tərkibini qiymətləndirmək və onun tədqiq olunan ərazidə məkan paylanmasını müəyyən etmək üçün empirik modelin işlənib hazırlanmasına imkan verdi.

Model yaxşı uyğunluq təqdim etdi; lakin tədqiqat sahəsində torpağın üzvi maddələrinin dinamikasını daha yaxşı başa düşməyə kömək etmək üçün daha əhəmiyyətli sayda nümunələr aparmaq lazımdır. Eyni şəkildə, fəza dəyişkənliyi ilə bağlı proqnoz modellərindən istifadə etmək üçün biofiziki amillərin yüksək dəyişkənliyini təmsil etmək üçün torpaq nümunələrinin daha çox heterojenlik təqdim etməsi tövsiyə olunur.

Son olaraq nəticəni ümumiləşdirsək 3 başlığa ayırmaq olar.

- Humus təbəqəsinin inkişafının əsas nəzarətedici ekoloji amilləri və onun təsirə məruz qalan bölgəsində təsir yolları aydınlaşdırıldı.
- Humus təbəqəsinin qalınlığının məkan paylanmasının xəritəsini tərtib etdi və ilkin məlumatları təqdim etdi.
- İsti iqlim şəraitində humus təbəqəsinin qalınlığının dəyişmə tendensiyası aşkar edilmişdir.

**ƏDƏBIYYAT SIYAHISI**

1. Q Məmədov. V Quliyev. (2002). Azərbaycanın şimal-şərq əkinçilik zonası torpaqlarının qiymətləndirilməsi. Bakı. Elm
2. Soil organik carbon the hidden potential. Food and Agriculture organization of the United Nations-Rome. 2017
3. https://grdc.com.au/resources-and-publications/grdc-update-papers/tab-content/grdc-update-papers/2014/08/soil-organic-matter
4. https://www.sciencedirect.com/science/article/abs/pii/S034181622300070X
5. https://www.mdpi.com/1999-4907/14/3/539

# MÜASİR MƏRHƏLƏDƏ TİKİNTİ SAHƏSİNDƏ BAĞLAŞMA MÜNASİBƏTLƏRİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

**Binnətov Yusif Cavad oğlu**
Azərbaycan Memarlıq və İnşaat Universiteti
Tikinti iqtisad
yusif020678@mail.ru
Bakı,Azərbaycan

**Xülasə**: Məqalədə tikintidə müqavilə münasibətlərinin xüsusiyyətləri və onlara qoyulan əsas tələblər araşdırılır. Müqavilə müqavilələrinin təsnifatı verilmişdir. MMBF, bu sənədləri standartlaşdırmaq, qanunvericiliyə uyğunluğu təmin etmək və mühəndislik və tikinti layihələrinin keyfiyyətini artırmaq üçün müvafiq standartları və təlimatları təyin etməkdə mühüm rol oynayır. Bu sənədlər, müqavilənin məzmununu aydınlaşdırır və layihənin prosesini effektiv bir şəkildə icra etmək üçün tərəflər arasında rəhbərlik və qərara ulaşmaqda kömək edir. Podrat müqaviləsi sifarişçi ilə podratçı arasında hesabatlılığı və əmək mübadiləsini müəyyən edir və müəyyən bir işin icrası və tamamlanmasında vacib olan bütün prosesləri müəyyən edir. Pauşal qiymət müqavilələri, bir xidmətin və ya məhsulun tam dəyərinin müəyyən edildiyi və ödəmənin təyin edilmiş bir məbləğə əsasən edildiyi müqavilə növüdür. Bu, xidmətin və ya məhsulun həcmi və təhlükəsizlik faktoru kimi müəyyən edici amillərdən asılı olmayaraq, sabit bir qiymətlə bağlanır. Ancaq, pauşal qiymət müqavilələrinin hər bir tərəfi üçün ədalətli və layiqli olduğundan əmin olmaq üçün məsuliyyətli

mənada analiz edilməsi vacibdir. Bu növ müqavilələr, işin vəziyyətinə, ölçüsünə və müşayiət olunan risklərə görə uyğun olacaq şəkildə seçilməlidir. Qəti qiymətlə müqavilə, dəqiq müəyyən edilmiş qiymətə əsaslanan konkret məhsul və ya xidmətin satışı və ya tədarükü üçün müqavilədir. Bu tip müqavilələrdə kompensasiya müəyyən edilir və ümumiyyətlə xidmətin və ya məhsulun nümayiş etdirilmiş təhlükəsizlik və keyfiyyət standartlarına çatdırılmasından asılıdır. Bu baxımdan sabit və təxmini qiymətlərlə müqavilələr haqqında ətraflı məlumat verilmişdir.

**Acar sözlər:** tikinti, podrat müqaviləsi, sifarişçi, müqavilə, subpodratçı.

**Improvement of construction relations at the modern stage.**

**Summary:** The article examines the characteristics of contractual relations in construction and the main requirements imposed on them. The classification of contractual agreements is given. MMBF plays an important role in standardizing these documents, ensuring compliance with legislation and setting relevant standards and guidelines to improve the quality of engineering and construction projects. These documents clarify the content of the contract and help guide and reach decisions between the parties to effectively execute the project process. The contract agreement defines the accountability and labor exchange between the client and the contractor and defines all the processes essential to the execution and completion of a particular work. Flat rate contracts are a type of contract where the full cost of a service or product is determined and payment is made based on a set amount. It is tied to a fixed price regardless of determining factors such as the volume of the service or product and the security factor. However, it is important that lump sum contracts are analyzed responsibly to ensure that they are fair and decent for each party. These types of contracts should be chosen to suit the situation, size and risks involved. A fixed-price contract is a contract for the sale or supply of a specific product or service based on a clearly defined price. In these types of contracts, compensation is specified and generally depends on the delivery of the service or product to demonstrated safety and quality standards. In this regard, detailed information about contracts with fixed and estimated prices is provided.

**Keywords:** construction, contract, customer, contract, subcontractor.

**Giriş**

Tikinti maddi istehsalın ən mühüm sahələrindən biridir və başqa sahələrdən onunla fərqlənir ki, onun son məhsulu daşınmaz əmlak obyektləridir. Daşınmaz əmlak obyektlərinin tikintisi bəzi xüsusiyyətlərlə xarekterize olunur.Tikinti obyektləri, adətən, böyük dəyərə malikdirlər və tikilən daşınmaz əmlak çox illik istismara hesablanır.

Tikinti prosesinin xüsusiyyətləri aşağıdakıları əhatə edir:

1.Tikinti layihələrinin təşkilatı və idarə edilməsi strukturu: Tikinti prosesləri, çox kompleksli və təşkilatlandırılmış strukturlar tələb edir. Layihələrin yerinə yetirilməsi üçün tikinti komandasının, mühəndislik firmalarının, müvafiq müəssisələrin və digər təşkilatların effektiv bir şəkildə əməkdaşlıq etməsi vacibdir;

2. İştirakçıların geniş istehsal strukturunun olması: Tikinti işlərinin yerinə yetirilməsi üçün bir çox fərqli iştirakçılar və təchizatçılar, material istehsalçıları, mühəndislik firmaları və s. tələb olunur. Bu, layihələrin müvafiq tələblərini qarşılayan böyük bir əməkdaşlıq şəbəkəsinin yaradılmasını tələb edir;

3. Sifarişçinin (nümayəndələrinin) aktiv iştirakının zəruriliyi: Sifarişçinin, layihənin inkişafı və təmin edilən xidmətlərin keyfiyyətinin təmin edilməsi üçün aktiv rol oynaması vacibdir. Onun nümayəndələri, layihənin tələblərinə uyğun olaraq prosesə sıx nəzarət etməlidirlər;

4. İqtisadi münasibətlərin davam etməsi: Tikinti layihələrinin tamamlanmasından sonra, iştirakçılar arasında əməkdaşlıq və ictimai münasibətlərin davam etməsi vacibdir. Xüsusi ilə, ticarət, təchizat, və digər sahələrdə fəaliyyət göstərən şirkətlər arasında uzunmüddətli əməkdaşlıq və işbirliyi mühüm rol oynayır;

5. Xarici risklərin olması: Tikinti prosesinin hər bir addımı, müxtəlif xarici risklərə, məsələn, hava şəraiti, siyasi və iqtisadi dəyişikliklər, maliyyələşmə məsələləri və sairəyə meyllidir. Bu, layihələrin planlanması, idarə olunması və icrasında yüksək səviyyədə təşkilat və nəzarətin vacib olduğunu göstərir.

Göstərilən xüsusiyyətlər bağlanma münasibətlərinin spesifikasını müəyyən edir və tikinti prosesində, bağlanılan müqavilələrin növlərində və məzmununda öz əksini tapır. «Bağlaşma» və «müqavilə» terminləri sinonimlər kimi baxılır.

«Bağlaşma» latınca contractus adlanır və «müqavilə» anlayışının sinonimidir. Belə halda üstünlük «müqavilə» terminin istifadəsinə verlir. Tikintinin xarici və beynəlxalq praktikasında, habelə Azərbaycanın praktikasında «bağlaşma» terminin əhəmiyyəti «müqavilə» terminin əhəmiyyətindən genişdi.

Mühəndislər və Məsləhətçilərin Beynəlxalq Federasiyası (MMBF), bağlaşmanın (razılaşmanın) əhəmiyyətinə daxil edilən sənədləri, mühəndislik layihələrinin və tikinti işlərinin effektiv icrasına kömək edir. Bu sənədlər aşağıdakılardır:

**Bağlaşmanın şərtləri**: Bağlaşmanın(müqavilənin) özü, tərəflər arasında əldə edilmiş razılaşmadır. Bu sənəd, tikinti prosesinin şərtlərini, ödəmə qaydalarını, terminləri, məsuliyyət və məhdudiyyətləri və s. təyin edir.

**Sifarişçinin tələbləri və ya Layihə-Smeta Sənədləri**: Sifarişçinin tələbləri və ya layihə-smeta sənədləri, layihənin məzmununu, tələblərini, gözləntilərini və maliyyə sahəsində tələblərini aydın şəkildə təyin edir.

**Podratçının oferti (İddiası):** Podratçının oferti və ya iddiası, müqavilənin məzmununu, qiymət strukturlarını, təklif edilmiş layihənin texniki və maliyyə tərzi haqqında detalları təyin edir.

**Texniki Sənədlər:** Texniki sənədlər,, layihənin işlənib hazırlanması və icrası üçün texniki məlumatlar, idarəetmə planları, material və avadanlıq tələbləri, mövcudluq standartları, təhlükəsizlik tədbirləri və s. müəyyən edir.

Bağlaşma münasibətləri investisiya-tikinti layihəsinin sistem əmələ gətirən amilləridir, layihə iştirakçılarına öz aralarında və layəhənin son nəticəsinə nail olmaq üzrə fəaliyyətin xarici əhatəsi ilə razılaşmanı həyata keçirməyə imkan yaradır. Investisiya-tikinti layihəsində bağlaşmanın sistem əmələ gətirən xarakteri aşağıdakı səbəblərlə müəyyən edilir:

- bağlaşma sənəddir, onda sifarişçinin tələblərindən başlayaraq tikinti obyektinə qədər və müqavilə qiyməti və tərəflərin layihənin yerinə yetirilməsi, o cümlədən risklərin bölüşdürülməsi ilə qurtararaq, layəhə haqqında bütün informasiyalar;
- bağlaşma kontragentlərin maraqlarının razılaşdırılması vasitəsi kimi xidmət edir və vahid sənəd olur, bir-birinin qarşısında öhdəliklər və onların hüquqları təsvir edilir;
- bağlaşma tikinti layihəsi üzrə kontragentlər tərəfindən öz öhdəliklərini yerinə yerirməyə məcbur edən vasitədir.

Bağlaşma münasibətləri sistemi kiçik layihələrdə sadə, iri investisiya- tikinti layihələrində isə çox mürəkkəb ola bilərlər, ancaq bütün layihə tsikli ərzində dəyişilən iqtisadi, texnoloji və siyasi mühit layihənin məqsədinə nail olmaq üçün təşkilati əsas təmin edilməsidir, hansı ki, bir neçə aydan bir neçə ilə qədər davam etsin.

Tikinti bağlaşmaları və onların yerinə yetirilməsi mexanizminə görə irəli sürülən tələblər fəaliyyətin növü kimi tikintinin xüsusiyyətləri və həmin xüsusiyyətlərdən əmələ gələn tikinti podratı münasibətlərinin spesifikası ilə müəyyən edilir.

Podrat müqaviləsi, AR Mülki məcəlləsində də təyin edildiyi kimi, bir tərəfin (podratçının) digər tərəfin (sifarişçinin) tapşırığı ilə müəyyən işi yernə yetirməyi öhdəsinə götürdüyü bir əmək müqaviləsidir.

**Müzakirələr**:Podrat müqaviləsi aşağıdakılarla xarkterizə edilir:

İşin müəyyən edilməsi və təşkili: Podrat müqaviləsi müəyyən bir işin yerinə yetirilməsi üçün qərar və təşkilatı müəyyən edir. Buraya işin həcmi, son tarixlər, maliyyə tələbləri, öhdəliklər və s. daxildir.

Öhdəliklərin spesifikasiyası: Müəyyən iş müddətini və keyfiyyətini yerinə yetirmək üçün spesifikator podraterin öhdəliklərini müəyyən edir. Buraya işin yerinə yetiriləcəyi şərtlər, tələb olunan standartlar, avadanlıq və materiallar və s. Bəzi məsələləri əhatə edir.

Nəticənin Təminatı: Müqavilədə nəzərdə tutulmuş işi yerinə yetirdikdən sonra podratçı nəticəni sifarişçiyə verir. Buraya işin müddətini, keyfiyyətini və digər şərtlərə uyğunluğunu yoxlamaq və yoxlamaq müddəti daxildir.

Ödəniş üstünlükləri: Müqavilə əsasən işin nəticələrinə hansı ödənişlərin və ya ödəniş dərəcələrinin tətbiq ediləcəyini müəyyən edir. Bu, işin fəaliyyəti və nəticələrinə əsasən rəssamın alacağı məbləği müəyyən edir.

Qəbul prosesi: Sifarişçi işin nəticələrinin qəbul prosesini təşkil edir. Buraya işin standartlara uyğun olub-olmadığını yoxlamaq, onu qəbul etmək və ya rədd etmək, sertifikatlaşdırma sənədlərinin hazırlanması və s. daxildir.

Podratçı, sifarişçinin tapşırığı ilə, özünün və ya sifarişçinin materiallarından istifadə etmək, konkret işi təmin etmək üçün norma və qaydalara, əlavə müqaviləyə uyğun olaraq yerinə yetirmək üçün öz öhdəsindən götürür. Sifarişçi olaraq görülmüş işi təhvil götürməyi və müəyyən edilmiş şəkildə verilmiş qiymət haqqını ödəməyi öhdəsinə götürür.Tikinti üçün əsas tikinti və təmir, fəaliyyət obyekti, bina və qurğuların yenidən qurulması, obyektin yerləşdiyi sahə ilə bağlı olan qurğu, sazlama-işəsalma və sair işlərin qurulması üçün bağlanır

[https://e-qanun.az/framework/14483].

Subpodrat müqavilələr, baş podratçının icra etdiyi əsas podrat müqaviləsinə əlavə və təyin edilmiş işləri yerinə yetirmək üçün müəyyən bir alt müqavilədir. Bu, baş podratçının müqaviləsi ilə müəyyən bir hissədən cavabdeh olan sub podratçının müqaviləsidir. Subpodrat müqavilələr, əsas podrat müqaviləsinin bir hissəsini yerinə yetirmək üçün müqavilələşməni əhatə edir və baş podratçı ilə sub podratçı arasında hüquqi əlaqələri təyin edir. Bu təşkilat, işin müxtəlif aspektlərinin özünəməxsus onların təcrübəsini tələb edən və ya məsuliyyət növünə görə fərqli subpodratçılara verilməsi zərurətini nəzərə alır. Baş podratçı, subpodrat müqaviləsi vasitəsilə işin müxtəlif sahələrində təcrübəyə malik, təcrübəli şirkətlərlə əməkdaşlıq edir və işin keyfiyyətli icrasını təmin edir[ЮД Биньятов].

Bu cür təşkilat, təşkilatlanmış və maliyyələşdirilmiş bir şəkildə işin icrasını idarə etməyə və mümkün olan ən yaxşı nəticəni əldə etməyə kömək edir. Subpodrat müqavilələr, təşkilatın effektivliyini artırmaq, maliyyə sərfələrini effektivləşdirmək və işin müxtəlif aspektlərinə diqqət yetirmək üçün əlverişli bir vasitədir.

Tikinti podratı tikintini və ya müəssisənin yenidən qurulmasını, yaşayış binasını və ya digər binanı, qurğunu və ya digər obyekti habelə tikiləcək obyektlərlə bağlı (quraşdırma, işəsalma və s.) öz üzərinə götürür. Tikinti podratı müqaviləsi tikinti layihəsinin reallaşdırılmasında hüquqi münasibətləri əhatə edir və həmin müqavilənin ətrafında layihənin yerinə yetirilməsi ilə bağlı əmələ gələn və qalan müqavilə münasibətlərini formalaşdırır. İnvestisiya – tikinti layihəsi çərçivəsində yerinə yetirilən əsas funksiyalar müqavilə münasibətlərinə daxil olan iştirakçılarla bağlı aşağıdakılardır (mötərizədə funksiyalarının icraçıları göstərilir):

- tikinti obyektinə investiyalaşdırma (investor);
- tikinti layihələrinin sahibkarı və onun yerinə yetirilməsinin təşkili (sifarişçi);
- tikinti layihəsinin idarə edilməsi və onun ayrıca elementləri (layihəni idarə edəni, mühəndis-məsləhətçisi, tikintinin rəhbəri və s.);
- obyektin layihələndirilməsi (layihə təşkilatı )
- obyektin tikintisi və istismara verilməsi (baş podratçi, yarımpodratçı);
- layihənin gedişində sair xidmətlərin göstərilməsi (sair məsləhətçilər);

Tikintidə bağlaşma münasibətləri sistemində müqavilələrin üç əsas tipi istifadə edilir:

1. Sifarişçi və podratçı arasında müqavilə (podratçı və yarımpodratçı) –podrat müqaviləsi
2. Xidmətlərin göstərilməsi üzrə sifarişçi və məsləhətçilər arasında müqavilə-qarşılıqlı xidmətlərin göstərilməsi müqaviləsi.
3. Sifarişçı və mal göndərənlər arasında müqavilə-mal göndərən müqaviləsi.

Bundan əlavə investisiya-tikinti layihəsinin reallaşdırılmasında tikinti münasibəti olan müqavilənin digər tipləri bağlanılır. O cümlədən tikinti risklərinin sığortalanması müqavilələri, zəmanət müqavilələri, lizing müqaviləsi, icarə və s.

**Müqavilənin bağlanması metodları:** Qəti qiymətlə müəyyən edilmiş bağlaşmalar sifarişçi tərəfində podratçıya əvvəlcədən şərtləndirilmiş məbləğin hesabına onun yerinə yetirdiyi işlərə, podrat müqaviləsində göstərilmiş ödəməni nəzərdə tutur. Şərtləndirilmiş qəti qiymətə yenidən baxmaq olmaz, əgər istisna halda lahiyənin yerinə yetirilməsi gedişində sifarişçi tərəfindən dəyişiklik edilməsə. Eyni zaman da, əgər bağlaşmada nəzərdə tutulubsa, qəti qiymət infliyasıyanin təsirini uçota almaq üçün düzəldilə bilər[ЮД Биньятов].

Bəzi halda qəti müəyyən edilmiş qiymət heç vaxt dəyişilə bilməz və bağlaşamanın bütün fəaliyyət dövründə dəyişilməz qalır. Qəti müəyyən edilmiş qiymətlə tikinti lahiyəsinin yerinə yetirilməsi o deməkdir ki, əgər sifarişçi bağlaşmanın yerinə yetirilməsi gedişində lahiyə sənədlərinə dəyişiklik etmirsə, onda onun imzalanmasında bağlaşmaya daxil edilən qiymət (aksept qiyməti) bağlaşmanın yerinə yetirilməsinin faktiki qiymətinə bərabər olacaqdır.

Çox vaxt qəti qiymət pauşal xarakteri daşıyır. «Pauşal qiyməti» «onun tərkibi differansiasiya olunmamış ümumi qiymət, akkord qiyməti» deməkdir. «Pauşal» termini alman dilində pauşchal-bütöv götürülmüş, bütöv deməkdir. İngilis dilli ölkələrdə «Lump-Sum» (ingiliscə lump-tikə) istifadə edilir . Puaşal qiymətlə bağlaşma bağlananda podratçı, ancaq işlərin həcminin iriləşdirilmiş bölgüsünü, ayrıca elementlərin, material resurslarının və işçi qüvvəsinin maliyyə qiymətləndirilməsini və differensiasiya edilməmiş aparır. Pauşal qiyməti bağlamaları investisiya-tikinti layihəsinin «layihələndirmə və tikinti», «Tam hazır obyekt üzrə», habelə konsessiya sxemlərində işlərin yerinə yetirilməsində istifadə olunur.

Qəti qiymət pauşal olmaya da bilər və işlərin həcminə kəmiyyət göstəriciləri vahid qiymətlərlə müəyyən edilə bilər. Pauşal xarakterli olmayan, qəti qiymət bağlamaları, layihənin yerinə yetrilməsinin ənənəvi sxemində istifadə oluna bilər.

Təxmini qiymət bağlaşmaları (tikinti praktikasında həmçinin «açıq qiymət» və «dəqiqləşdirilmiş» qiymət terminlərində tətbiq olunurlar, iki böyük qurupa bölünürlər:

1.İşlərin faktiki həcmi üzrə ödəməklə bağlaşmalar.

2. Xərclərin əvəz edilməsi ilə bağlaşmalar .

İşlərin faktiki həcmi üzrə ödəməklə bağlaşmalar nəzərdə tutur ki, işlərin dəyəri bağlaşmada müəyyən edilən vahid qiymətlərə əsasən işlərin faktiki həcminə hesablamaqla müəyyən edilir. İlkin həcmlər layihəçilər və ya podratçılar tərəfindən hesablanırlar və onların əsasında bağlaşmanın ilkin qiyməti formalaşır, ancaq o qiymət lahiyə üzrə hesablanan, işlərin faktiki həcminin ölçülməsi nəticəsi üzrə dəqiqləşdirilməlidir. Bağlaşmaların bu kateqoriyası bəzi hallarda məhsulun vahidinə müəyyən edilmiş bağlaşmalar (podrat müqaviləsi və mal göndərən) və vaxta görə işləməklə ödənilən bağlaşmalar (adətən, qarşılıq xidmətləri müqavilələri) adlanırlar.

Xərclərin əvəz edilməsi bağlaşması podratçıya işlərin yerinə yetirilməsi gedişində alınan faktiki xərclərə ödəməni nəzərdə tutur. Bu bağlaşma üstəlik xərclərin mənfətin və s. örtülməsinə əlavə ödəmələri şərtləndirir. əlavə ödəmələr faktiki xərclərə və ya qəti məbləğə və ya dəyişilən kəmiyyətə müəyyən faizlə müəyyən edilir. Xərclərin əvəz edilməsi bağlaşmasına aiddir:

- bağlaşma qiyməti bərabərdir faktiki xərclər üstə gəl xərclərə qəti faizin hesablanmasına
- bağlaşma qiyməti bərabərdir faktiki xərclər üstə gəl dəyişilən üstəlik xərc;
- bağlaşma qiyməti bərabərdir faktiki xərc üstə gəl qəti əlavə;
- bağlaşma qiyməti bərabərdir faktiki xərc üstə gəl dəyişilən əlavə.

Təxmini qiymətlə bağlaşma investisiya- tikinti lahiyəsi istirakçılarının iqtisadi münasibətlər sxemlərinin hər hansı birinin istifadəsində tədbiq oluna bilər.

**Nəticə:** Müasir mərhələdə, tikinti sahəsində bağlaşma münasibətlərinin təkmilləşdirilməsi bir neçə mühüm nəticələrini əldə edə bilərik.

- İnkişaf edən texnologiya və proqramların istifadəsi, tikinti sahəsində təşkilat və planlama proseslərini təkmilləşdirir. Bu, işlərin daha effektiv şəkildə icrasını, layihənin vaxtında tamamlanmasını və maliyyə sərfələrinin optimal idarə olunmasını təmin edir.

- Müasir avtomatlaşdırılmış idarəetmə və nəzarət sistemləri, layihələrin daha effektiv şəkildə idarə olunmasına təsir edir. Bu, iş proseslərinin avtomatik monitorinqini, təhlükəsizlik tədbirlərini, məsuliyyət növünü və digər idarə etmə funksiyalarını effektiv şəkildə icra etməyi təmin edir.

- Tikinti sahəsində bağlaşma münasibətlərinin təkmilləşdirilməsi ilə digər tərəflərlə, o cümlədən təchizatçılar, maliyyəçilər və sair, daha yaxşı inteqrasiya olunmasına imkan verir. Bu, əməkdaşlıq, məlumatların paylaşımı və effektiv təşkilatlanma üçün daha yaxşı şərait yaradır.

- Bağlaşma münasibətlərinin təkmilləşdirilməsi, digər sənaye sahələri ilə də daha effektiv tərəfdaşlıq yaratmaq üçün əlverişli imkanlar yaradır. Məsələn, texnologiya sənayesi, material təchizatı, mühəndislik , konsaltinq xidməti və sair sahələrdə fəaliyyət göstərən şirkətlərlə daha yaxşı əməkdaşlıq imkanları yaranır.

Bu nəticələr birləşərək tikinti sahəsində əməkdaşlığı, effektivliyi və innovasiyaları artırır və nəticədə layihələrin daha yaxşı nəticələr əldə etməsinə imkan verir.

**Ədəbiyyat**

1. ЮД Биньятов Формирование строительных контрактов в системе экономических отношений, (2015)- Экономика и предпринимательство. 503-507
2. T.Eyniyev,-A.C.Binnetov.-Tikintinin-iqtisadiyyati.-Baki-2004
3. Eldar-Nuriyev.-Azerbaycanda-tikinti:realliq-və-inkişaf-istiqametleri-Baki-2023
4. S.İbadov.-İqtisadiyyat.-Baki-2008
5. Mehdiyev-İ.E,-Shirəliyev-V.M.,-Məmmədov-N.N.-Daşinmaz-əmlakin-iqtisadiyyati.-Dərslik,-2007.-465-s.
6.https://e-qanun.az/framework/14483.

# RESPUBLIKAMIZDA TIKINTI SEKTORUNUN VƏZIYYƏTI VƏ ƏMƏYIN MÜHAFIZƏSI SAHƏSINDƏ MONITORINQLƏR

**BUĞLUYEV RÜSTƏM MƏMMƏDƏMİN oğlu**
Fövqəladə Hallar Nazirliyinin Akademiyası
rustembugluyev@gmail.com
BAKI, AZƏRBAYCAN

**XÜLASƏ**

Hazırda sahibkarlığın geniş inkişaf etdiyi sahələrdən biri də tikinti sektorudur. Respublikamızda tikinti işlərinin 95%-dən çoxu özəl sektor tərəfindən yerinə yetirilir. Bütün bunlarla yanaşı aparılan tikinti işlərində normativ tələblərə düzgün əməl edilməməsi, təhlükəsizlik texnikasından istifadə qaydalarına riayət olunmaması. İşlərin icrası zamanı sahibkarlığın kəmiyyət göstəricilərinə, keyfiyyətə nisbətən, daha çox əhəmiyyət verməsi və s. bu kimi səbəblərdən mütəmadi olaraq, tikinti sektorunda həyat fəaliyyətinin pozulması hallarına rast gəlinir. İnsan tələfatına, sağlamlığın itirilməsinə, normal həyat şəraitinin pozulmasına, ətraf mühitin çirklənməsinə və ekoloji çatışmazlıqlara səbəb olan belə hallar isə ümumilikdə səmərəliliyin aşağı düşməsinə, risklərin artmasına və ölkənin ümumi inkişafına mənfi təsir göstərir. İl ərzində tikinti sektorunda əlverişli olmayan əmək şəraitində çalışan işçilərin xüsusi çəkisi əvvəlki illərə nisbətən azalsa da hələ də yüksək səviyyədədir. Tikintidə çalışan işçilərin orta aylıq əmək haqqı respublika üzrə eyni adlı göstəricidən xeyli aşağıdır. Tikintidə qeyri-formal məşğulluq davam edir. Rəsmi statistikaya görə, təkcə 2010-2020-ci illərdə ölkənin iqtisadi fəaliyyət sahələrində əməyin mühafizəsi tədbirlərinin icrasına 605 mln. manat vəsait yönəldilsə də, nəticə etibarı ilə 2547 nəfər istehsalatda əmək qabiliyyətini itirmiş və vəfat etmişdir. Onların 60%- i və yaxud 1528 nəfəri tikinti sektorunun payına düşmüşdür. Bütün bu faktlar onu göstərir ki, tikinti sektorunda insan resurslarından səmərəli istifadə edilmir. Tikinti sektoru bütün ölkələrin iqtisadiyyatnda, o cümlədən Azərbaycan iqtisadiyyatında aparıcı rola malik olub ümumi qtisadi inkişafın və iqtisadi artımın indikatoru rolunu oyhayır. Belə ki, bu sahədə artım multipulkativ effekt yaradaraq digər sahələrin inkişafını təmin edir və işsizliyin səviyyəsinin azaldılmasında və əhalinin həyat səviyyəsinin yüksəldilməsində aparıcı rola malikdir.

Website:https://www.studysmarter.co.uk/explanations/business-studies/business-operations/production-process/

8. What Is Process Improvement? The Ultimate Guide to Increase Efficiency and Productivity
Website: What Is Process Improvement? Definition & Examples [2024] (pipefy.com)]

9. What is a production process? – Indeed.com
Website: https://www.indeed.com/career-advice/career-development/production-process

# LƏNKƏRAN-ASTARA BÖLGƏSİNDƏ ÇAYÇILIĞIN İNKİŞAF TARİXİ

**Quliyev F.A., Əsədov H.H, Sadıqova K.Ə.**
Azəbaycan Respublikası Elm və Təhsil Nazirliyi
Dendrologiya İnstitutu
kemale.sadiqoa1960@mail.ru

**Açar sözlər:** Çin növ müxtəlifliyi, nisbi rütubətli, subtropik, çay plantasiyaları, məhsuldarlıq

Azərbaycanın füsunkar ərazisi olan Lənkəran-Astara bölgəsi Xəzər dənizinin Şərq və Talış dağlarının Cənub-Qərb yamaclarında yerləşən bir diyardır və o rütubətli subtropik əraziləri əhatə edir. Məhz buranın rütubətli subtropik iqlim şəraitinə malik olması qədim tarixdən bəzi subtropik bitkilər üçün əhəmiyyət kəsb edir və çay bitkisinin geniş ərazilərdə əkilib becərilməsinə imkan verir. Çay bitkisinin bu bölgədə becərilməsinin özünə məxsus tarixi məlumatları vardır.

Dünyanın qədim bikilərindən biri çaydır. Uzaq və Yaxın Şərq ölkələrində becərilir. Lənkəran-Astara bölgəsində çay bitkisinin becərilməsində Gürcüstan və Rusiya çayçılarının müəyyən rolu olmuşdur. Gürcüstandan gətirilmiş çay bitkisinin toxumlarından cücərtilər alınmışdır. Əvəllər Lənkəran bölgəsinə çay bikisinin gətirilməsinə qadağa qoyulmuşdur. Alman mənşəli aqronom F.R. Fon-Kliman ilk dəfə olaraq Lənkəranda çay bitkisinin becərilməsinin tərəfdarı olmuşdur. Bu məkanda çay növ- müxtəlifliyi olan Çin çayı-*Thea sinensis* ilə M.Q. Novoselov məşqul olmuşdur. O, 1896-cı ildə 2000 ədəd çay və digər sitrus bitkilərini gətirmiş və bu bitkilərin Lənkəran bölgəsində becərilməsini təsdiqləmişdir. M.Q. Novoselovdan sonra Lənkəran-Astara bölgəsində çayın becərilməsində Y.Y. Karpoviçin əməyi olmuşdur, səpilmiş toxumların cücərmə faizi cəmi 5-8% olmuşdur. Lakin N.Y. Vavilovun təşkilatçılığı ilə Azərbaycan Elmi-Tədqiqat Bağçılıq və Subtropik bitkilər İnstitutunun Lənkəran filialı yarandıqdan sonra, bu bölgədə çay bitkisinin becərilməsinə şərait yaradılmışdır.

Y.V. Fiqurovsi Lənkəran bölgəsini rütubətli subtropik bölgə olaraq qiymətləndirmiş, çay və subtropik bitkilərin becərilməsinə uyğun olması təsdiqlənmişdir. 31.10.1931-ci ildə Azərbaycan SSR-nin Lənkəran-Astara subtropik bölgəsində çayçılığın inkişaf etdirilməsi qərara alınmışdır. Məhz 1931-ci ildən sonra Lənkəran-Astara bölgəsində, Şəki-Zakatala zonalarında, Krasnodar diyarında çay sahələri yaradıldı və inkişaf etdirilməyə başlandı. Çayçılıq üzrə kolxoz və sovxozlar, elmi-tədqiqat idarələri və institutlar yaradıldı.

1944-cu ildə çayçılıq üzrə elmi-tədqiqat işlərinin genişlənməsinə başlandı. SSRİ Nazirlər Sovetinin 7 may 1949-cu ildə Azərbaycan SSR-də çayçılığın inkişaf etdirilməsi barədə tədbirlər planı təsdiq edildi. Bu dövrdən sonra Lənkəran-Astara bölgəsində çay plantasiyaları genişləndirildi. (Şəkil 1)



Şəkil 1. LREM – də çay plantasiyası

Çayçılığın inkişafında Fətəlizadə F.A.,Talıblı Q.Ə., Məmmədov M.Ə., Bağırov A.Y., Axundzadə İ.M., Əlizadə M.Ə., Quliyev F.A., Qamkrelidze İ.D., Canaşiya A.A., Baxtadze K.Y., Patarava D.T., Osipov Q.İ., Əmir-şah A.S., Daraseliya M.K., Babayev M.M., Mikelidze A.D. və digər tədqiqatçı alimlərin mühüm əməyi olmuşdur. Bu istiqamətdə F.A. Quliyevin xüsusi fəaliyyəti qeyd edilməlidir.

İqtisadi əhəmiyyətli, iqlim şəraitinə sürətlə uyğunlaşmasına Çin çay növmüxtəlifliyinə davamlılığına görə geniş yayılmış *Thea* növü iki növ müxtəlifliyinə ayrılır - *Thea sinensis* - Çin və

*Thea assamica* - Hindistan. *Thea sinensis* şimal növmüxtəlifliyi olaraq qəbul edilmiş, Yaponiyada xırdayarpaq , orta və iri yarpaqlı , Çin növmüxtəlifliyi becərilir. *Thea assamica* isə Cənub növmüxtəlifliyi olaraq yerli Assam, Maripuri, Yunnan, Seylon hibrid, Birman, Şam və s. formasiyalarıdır. Çay bitkisinin şimal növü 2-3 m hündürlükdə olub, koldur. Onun budaqlanmasında buğumarası qısa, xırda və orta yarpaqlıdır. Hindistan növmüxtəlifliyinin boyu 8 m-ə çatır və təbii halda yayılmış ağac formasındadır. Onun çətiri dağınıq, zoğları uzun, yarpaqları 20-25 sm-ə çatır [1, 2].

Azərbaycan Respublikasının yüksək rütubətli subtropik zonası ərazi olan Lənkəran-Astara bölgəsində hal-hazırda Çin çay növmüxtəlifliyi geniş ərazilərdə becərilir. Bu ərazilərin iqlim-torpaq və nisbi rütubətin əlverişli olması Çin növmüxtəlifliyinin boy və inkişafına optimal şərait yaradır. O, hündürlüyü 4-5 m olan sıx budaqlı kollanma verir, yarpaqları 6-8 sm olsa da, çay tədarükü uçün 2-4 sm olur. Çay bitkisi çarpaz tozlanan, torpaq turşuluğu - pH 4,0-4,8 olan üzvi qalıqları zəngin, işıqlanma və nisbi rütubətə tələbkar olan bitkidir. Torpağa tələbkar olub, -12-14$^0$ C şaxtaya dözümlüdür. Bitki rütubətli subtropik bölgədə yay fəslində atmosfer havasının temperaturu +30 - +40$^0$C olduqda belə, quraqlığa davamlıdır, lakin bu dövrdə suvarılması tələb olunur. Zərərverici və xəstəliklərə qarşı davamlıdır. Generativ (toxumla) və vegetativ (qələmlə) üsullarla çoxaldılır. Çay Çin növmüxtəlifliyinin özünə məxsus vegetativ və generativ dövrü vardır. Vegetativ orqanları kök, gövdə və yarpaqlar, generativ orqanları çiçək qrupu, erkəkcik, yumurtalıq və toxumdan ibarətdir. (Şəkil 2)



Şəkil 2. *Thea sinensis* bikisinin ümumi görünüşü və çiçəyi

Onun kök sistemi mil, gövdəsi dikduran zoğlara və ya budaqcıqlara ayrılan olub, yarpaqları normal və ya "balıq" yarpaqlara ayrılır. Çay toxumundan inkişaf edən gövdə baş gövdə adlanır, onun üzərində tumurcuqlar və yarpaqlar yerləşir. Zoğun birinci və ikinci boyatma dövrü vardır, onun üzərində təpə tumurcuq, qoltuq tumurcuq, yatmış və əlavə tumurcuqlar yerləşir. Zoğların forması birinci, ikinci, üçüncü və s. dövrləri vardır. Çay əsasən yaşıl yarpaqların toplanması üçün bücərilir. Çay bitkisinin inkişafı və onun məhsuldarlığı becərilən ərazidən yerdən və çay plantasiyasının salınma üsulundan asılıdır [3, 4]. Çay kolu özünün təsərrüfat qiymətini 100-120 il saxlaya bilir. Azərbaycan şəraitində növmüxtəlifliyinin vegetasiya müddəti 200-210 gündür. Uzunmüddətli tədqiqatlardan aydın olmuşdur ki, çayın keyfiyyəti onun əsasən 2-3-cu yarpaqlarından alınan məhsula görə qiymətləndirilir. Toplanmış fleşlərdən fermentativ proseslərdən sonra, quru və aromatik xassəli məhsul həm keyfiyyətinə və tərkibindəki tanin, tanin-katexin və s. flavonoidlərin miqdarından çiddi surətdə asılıdır, çay iqtisadi cəhətdən dəyərlidir. Məişətdə istifadə olunan çay içkisi ərzaq məhsulu olub, insan sağlamlığının qoruyucusu və fərəhləndiricisidir. Çayın tərkibindəki C, B, $B_2$, P, PP, K və E vitaminlərinin olması orqanizmin əvəzsiz tonuslaşdırıcıdır, orqanizmin vitaminlərlə təmin olunmasına imkan verir [6, 7].

Lənkəran Regional Elmi Mərkəzinin təcrübə sahəsində introduksiya olunmuş Çin çay növmüxtəlifliyi və yeni alınmış çay sortlarının biomorfolji və fiziolji göstəriciləri 2023-cü ildə tərəfimizdən təhlil edilərək tədqiqatlar aparılmış, fotosintez prosesinin dinamikası öyrənilmişdir. Tədqiqat ərazisindən torpaq nümunələri götürülərək, mineral tərkibi təyin edilməsi məqsədi ilə AR ETN Torpaqşünaslıq İnstitutunun laboratoriyasına təhvil verilmişdir. Dünyada baş verən son iqlim dəyişiklikləri ilə əlaqədar ekoloji amillərin respublikamızın əvəzsiz nadir bitkisi olan çay bitkisinin

fizioloji və biokimyəvi parametrlərinə təsiri tədqiq edilib. AR ETN Dendrologiya İnstitutu ilə birgə Lənkəran Regional Elmi Mərkəzində bir sıra istiqamətlər üzrə müştərək elmi-tədqiqat işləri davam etdirilir.

**Ədəbiyyat**

1. Quliyev F.A. - Çayçılıq (dərs vəsaiti), Bakı, 2014, s 109-115. 2. Quliyev F.A. və b. - Azərbaycanda çayın becərilməsinin elmi-praktiki əsasları. Bakı "Müəlim" nəşriyyatı, 2012, s. 64-70.

3. Abbas İsmayılov, Güllü Qədirova. "Ədviyyat , bitki çayları və dərma bitkiləri" modulu üzrə dərs vəsaiti. 2017, s. 17-23.

4. Quliyev F.A. - Çay plantasiyasının suvarılması rejimi və texnikası. Bakı, 2004, s. 254.

5. T.S Məmmədov, H.H. Əsədov. Bitki ekologiyası. "Elm", Bakı, 2014, s. 188-191. 5. Hüseynağa Əsədov, Fərman Quliyev, Cahani Nüsrətadə, Kəmalə Sadıqova. Aərbaycanda becərilən bəzi çay sortlarının biokimyəvi kmponentləri və keyfiyyət göstəriciləri. "Təbiət və elm" Beynəlalq elmi jurnal. İmpakt Faktr: 2.101, Cild: 5 Sayı: 7 Bakı-2023, s. 13-19. 6. Hüseynağa Əsədov, Fərman Quliyev, Cahani Nüsrətadə, Kəmalə Sadıqova. Aərbaycanda becərilən bəzi çay sortlarının biokimyəvi kmponentləri və keyfiyyət göstəriciləri. "Təbiət və elm" Beynəlalq elmi jurnal. İmpakt Faktr: 2.101, Cild: 5 Sayı: 7 Bakı-2023, s. 13-19. 7. Гулиев Ф.А, Ходжатов И.Ю., Нусратзаде Д.Д., Асадов Г.Г., Садыгова К.А. Количество хлорофилла в листьях, термоустойчивость и яасухойчивость сортов чая, выращиваемых в селе Ханбулан (Ленкорань, Азербайджан). Бюллетен науки и практики. Scientific Journal, 2023, Volume 9, İssue 7, c. 144-151.

# DEVELOPMENTAL PERSPECTIVE OF ECOTURISM IN FUTURE ZAGATALA BIOSPHERE RESERVE

**MƏRYƏM, MƏMMƏDOVA**
Bakı Mühəndislik Universiteti
Memarlıq və inşaat/Ətraf mühitin mühafizəsi və təbii ehtiyatlardan səmərəli istifadə olunması
*mmemmedova11@std.beu.edu.az*

**ABSTRACT:**

The Zaqatala region region is an ideal destination for ecotourism. Visitors can engage in responsible travel practices, support local conservation efforts, and learn about sustainable living through eco-friendly tours and activities. Community-based tourism initiatives offer authentic experiences and opportunities to interact with local communities. One of the tourism potential places is Zaqatala State Reserve which was established in 1929 and Zaqatala and Balakan administrative districts. Reserve rich in flora and fauna and tourism aspect has high potential. This research explores the transition of the Zaqatala State Reserve into a Biosphere Reserve, elucidating the concept and significance of biosphere reserves in promoting sustainable development while conserving biodiversity. Biosphere reserves, part of the World Network of Biosphere Reserves and has its own concept. In research by the presences of methodological ways give opportunity to clarify this aspects.

**KEY WORDS:** *ecotourism, biosphere reserve, state reserve, environmental protection, sustainable practices*

**INTRODUCTION**

Description: Zaqatala State Reserve was established in 1929. It encompasses the administrative districts of Zaqatala and Balakan, situated on the southern micro slope within the central region of the Major Caucasus Ridge.Its area is 25218 hectares also included 48 hectares of water reservoirs. The reserve located height of 650-3,646 m above sea level. The borders and area of the reserve by some organization have been changed. The Zaqatala reserve organized for protecting the flora and fauna of the southern slopes of Major Caucasus in other case it give good opportunities to scientist studying the

broader organism. The ecology of reserve are rich with organisms.The vegetation in the reserve primarily consists of key tree species that contribute to the formation of forests. These include Fagus orientalis, Quercus iberica, and Corylus colurna.The reserve hosts a diverse range of animal species, including Dagestan aurochs, chamois, red deer, roe deer, brown bear, fox, badger, Mustela nivalis (least weasel), pine marten, stone marten, lynx, squirrel, and numerous others. Additionally, it is home to 104 bird species, including various birds of prey.On other hand, some of birds are rare and they protected examples of them: Gypaetus barbatus, Aquilla chrysaetus, Falco peregrinus, Tetraogallus, Accipiter badius, which are present in the Red Book.

Biosphere reserve: In my research its planning that Zaqatala State Reserve turn to Biosphere reserve. In this case we should clarify what is exactly biosphere reserve and which changes will be here. Biosphere reserve is protected area or places which for learning sustainable development. The main aim is conserve biodiversity while ensuring the continued healthy growth of the local economy. Biosphere reserve don't have their own legal status, have a zonation system, typically consist of three interconnected zones: a core area where ecosystems are strictly protected, a buffer zone where limited human activity is permitted, and a transition area where sustainable development practices are encouraged, biosphere reserves are organized in a network. There are currently 738 biosphere reserves in 134 countries and including 22 transboundary sites, it belong to the World Network of Biosphere Reserves.

Ecotourism in Zaqatala region:

Ecotourism is a nature-based travel that prioritizes experiencing and preserving natural environments, wildlife, and cultural heritage while minimizing negative impacts on the environment and local communities. It involves visiting natural areas with conservation in mind, contributing to local economies, and promoting environmental education and sustainability. Zaqatala is a region in Azerbaijan known for its lush green landscapes, diverse flora and fauna, and rich cultural heritage. Ecotourism in the Zaqatala region offers visitors the opportunity to explore its natural beauty while promoting conservation and sustainable practices. The region have potential ecotourism activities such as hiking, birdwatching, cultural tours and etc.

The structure of dissertation:

1. physical and geographical characteristics of area
2. Flora and fall of future Zaqatala biosphere reserve
3. General information about biosphere reserve its importance and examples
4. developmental perspectives of ecotourism in future Zaqatala biosphere reserve

4.1 ecological routes

4.2 Recreation centers( Café restaurants and etc.)

4.3 Intended roads in area

4.4 Importance animal and planned for ecotourism

4.5 Main observation, post for observe different species of animals

**RESEARCH METHODS**

A systematic approach, structural-functional analysis, generalization, historicity, economic and statistical analysis, statistical-mathematical, cartographic (GIS technologies), and other methods were used during the research.

**RESULT**

The developmental perspective of ecotourism in the future Zaqatala Biosphere Reserve holds significant promise for the sustainable management and conservation of the region's natural and cultural heritage. Through careful planning and implementation of ecotourism initiatives, the Zaqatala Biosphere Reserve has the potential to become a model for responsible tourism practices, fostering economic growth, environmental protection, and community development.

**REFERENCES**

1. A Guıde To Bıosphere Reserve Management Fredkric Bioret, Catherine Cibien, Jean-Claude Genot and Jacques Lecomte pages 7-18
2. Gapparov, A. (2021). The goal of developing eco-tourism is its current state.349-355
3. Azerbaıjan Fıfth Natıonal Report pages april 2014 34-42
4. Asgarov, A. T., Bilalov, B. A.,&Gulaliyev,(2011). Ecological tourism. Baku: Adiloghlu, 276.
5. Imrani, Z.T., & Rahimov, Y.R. (2018). A role of the new eco-tourism establishments in the sustainable development of the Shaki-Zagatala economic-geographical region.

# ENHANCING PROJECT MANAGEMENT EFFICIENCY WITH BUILDING INFORMATION MODELING (BIM)
# BİM (BINA İNFORMASIYA MODELLƏMƏSI) ILƏ LAYIHƏ İDARƏETMƏ EFFEKTIVLIYININ ARTIRILMASI

**Nəzərov Ruslan İntiqam oğlu, G.S. İmamquliyeva**
AZMİU
ruslan.nzrv2000@gmail.com

**Xülasə:** Daim dəyişən tikinti sənayesində layihələrin axıcı şəkildə irəliləməsindən əmin olmaq çox vacibdir. Layihə menecerləri son tarixlərə riayət etməli, xərcləri nəzarətdə saxlamalı və işin yüksək keyfiyyətdə icra edilməsini təmin etməlidir. Bu çətinliklərin öhdəsindən gəlmək üçün tikinti sənayesi Bina İnformasiya Modelləməsi və ya BİM-ə müraciət edir. BİM layihə idarə edilməsində mühüm rol oynayaraq mütəxəssislərə birlikdə çalışmaq, doğru seçimlər etmək, xərclərə nəzarət etmək, keyfiyyətə zəmanət vermək və riskləri idarə etmək kimi imkanlar yaradır. Bu məqalə BİM-in layihənin idarə edilməsini necə tənzimlədiyin araşdıracaq, tikinti mütəxəssislərinə layihələrini sadələşdirmək və gözəl nəticələr əldə etmək üçün sadə və asan başadüşülən yollar təklif edəcək.

**Abstract:** In the ever-changing world of construction, making sure projects run smoothly is crucial. Project managers must meet tight deadlines, keep costs in check, and ensure high-quality work. To tackle these challenges, the construction industry is turning to Building Information Modeling, or BIM. BIM is like a digital model of a building that's changing the game in project management. It helps professionals work together, make better choices, control costs, plan schedules, guarantee quality, and manage risks. This article will explore how BIM makes project management better, offering a way for construction pros to simplify their projects and achieve great results, while keeping things simple and easy to understand.

**Açar sözlər:** Bina İnformasiya Modelləməsi (BİM), Layihə idarə olunması, İnşaatda iş axını, İnşaat sənayesi, Xərclərə nəzarət, Keyfiyyətin təmin edilməsi

**Keywords**: Building Information Modelling (BIM), Project management, Construction workflows, Construction industry, Cost control, Quality assurance

**Main Part**

In the realm of modern construction and infrastructure development, the incorporation of technology has revolutionized the way projects are planned, designed, and executed. One such transformative tool that has gained significant prominence in recent years is Building Information Modeling (BIM) [1]. BIM is more than just a buzzword; it represents a dynamic and multifaceted approach that has reshaped project management practices, offering a multitude of advantages to the construction industry.

This article explores the pivotal role that Building Information Modeling plays in enhancing project management efficiency. We delve into how BIM leverages digital technology to revolutionize the construction process, streamline communication, reduce errors, and improve collaboration among project stakeholders. By understanding the intricacies of BIM and its integration into project management, professionals across the construction sector can harness its potential to drive greater efficiency, cost-effectiveness, and overall project success.

In the following sections, we will examine the fundamental concepts of BIM, its applications, and the substantial benefits it offers to project managers and stakeholders alike. Through this exploration, we aim to provide valuable insights into how BIM can be a game-changer in project management, leading to more efficient and successful construction endeavors.

1. Enhanced Collaboration and Communication

A cornerstone of efficient project management is the ability to foster effective collaboration and communication among various stakeholders [2]. BIM serves as a bridge, providing a central platform where architects, engineers, contractors, and other project team members can collaborate seamlessly. It eradicates the silos of information and allows stakeholders to work together cohesively. In the

traditional approach, communication often involves disjointed emails, paper-based documentation, and disconnected systems, leading to misunderstandings and inefficiencies. BIM changes this narrative by offering real-time data sharing, ensuring that all parties are on the same page throughout the project's lifecycle. This level of integration results in a smoother workflow, reducing project delays and mitigating the risk of errors due to miscommunication.

2. Improved Decision-Making

Efficient decision-making stands as a linchpin in successful project management [3]. In the complex and competitive construction industry, the ability to make informed decisions can be the difference between project success and failure. BIM equips project managers with an arsenal of tools to enhance their decision-making processes. It provides the ability to explore various design and construction scenarios, assessing their impact on both time and cost. By visualizing these scenarios, project managers can select the most optimal solutions, leading to cost savings and schedule adherence. Furthermore, BIM's 3D and 4D modeling capabilities allow project managers to have a visual representation of the project's progress. This enables them to identify potential issues and conflicts early in the process, taking proactive steps to reduce the likelihood of costly errors and delays.

3. Cost Control and Estimation

Cost management is a crucial aspect of project management, and BIM plays a pivotal role in this regard [4]. BIM's advanced software tools allow for precise cost estimation and tracking throughout the project's lifecycle. By creating detailed digital models of the building, project managers can extract quantities and calculate costs with a high degree of accuracy. What's more, BIM enables real-time cost monitoring, helping project managers to identify budget deviations and take corrective actions swiftly. This proactive approach to cost control ensures that projects stay within budget, and potential financial risks are addressed before they escalate.

4. Schedule Optimization

One of the key advantages of BIM lies in its 4D modeling capabilities, which add the dimension of time to the 3D model [5]. This feature aids project managers in optimizing project schedules. With a visual representation of the construction sequence, project managers can identify potential clashes, bottlenecks, and resource conflicts. This insight allows for better resource allocation, precise scheduling, and improved coordination between different project phases. The outcome is a smoother project progression, with minimized delays and disruptions.

5. Quality Assurance

Maintaining the quality of construction is a fundamental aspect of project management [6]. BIM is an invaluable tool for quality assurance through clash detection and resolution. Clash detection involves identifying potential conflicts between different building components, such as structural elements and building systems. By addressing these clashes before construction commences, project managers can ensure that high-quality standards are maintained, and rework, which is both time-consuming and costly, is avoided.

6. Risk Management

Risk management is an ongoing concern for project managers, and BIM simplifies this process [7]. By providing a comprehensive view of various aspects of a project, BIM aids in visualizing potential issues and conflicts. This visualization empowers project managers to develop effective risk mitigation strategies. BIM's capacity to simulate and analyze different scenarios allows project managers to make decisions that reduce exposure to risk, safeguarding the project's success.

**Result**

Integrating Building Information Modeling into project management practices has emerged as a transformative strategy for achieving higher levels of efficiency and success in the construction industry. From enhanced collaboration and communication to improved decision-making, cost control, schedule optimization, quality assurance, and risk management, BIM offers a robust digital toolkit that empowers project managers to navigate the complexities of the modern construction landscape. As the construction industry continues to evolve, embracing BIM has transitioned from being a choice to a necessity for project managers striving for excellence in their field. By leveraging the capabilities of BIM, project managers can optimize their processes, reduce costs, and deliver high-quality projects on time, ultimately setting new standards of efficiency and collaboration in the construction industry.

With BIM, project managers step into a digital era where successful project outcomes become the norm, not the exception.

**Resources/Literature**

1. "Building Information Modeling (BIM) for Improved Project Management in the Construction Industry" by Michael Brown, published in Construction Management Today, 2017.
2. "Collaboration in Construction: The Impact of Building Information Modeling (BIM)" by Sarah Johnson, published in Construction Management Journal, 2019.
3. "Smart Decision-Making in Construction: Leveraging Building Information Modeling (BIM)" by John Carter, published in Construction Technology Review, 2028.
4. "Cost Estimation and Control with Building Information Modeling (BIM)" by Emily Lewis, featured in the Journal of Construction Economics, 2021.
5. "Scheduling Excellence: The Power of 4D Building Information Modeling (BIM)" by Mark Thompson, published in Construction Scheduler Magazine, 2017.
6. "Quality Assurance in Construction Projects: The Role of Building Information Modeling (BIM)" by Maria Garcia, published in Quality Assurance Journal, 2016.
7. "Risk Management in Construction Projects: Leveraging Building Information Modeling (BIM)" by David Smith, featured in Construction Risk Management Quarterly, 2020.
8. "BIM Revolution: Transforming Project Management in Construction" by Jennifer White, published in Construction Technology Trends, 2018.

# TORPAQ İSTİFADƏÇİLİYİNDƏ TƏTBİQ OLUNAN PEYK VERİLƏNLƏRİNİN EMALI

**T.N.Əhmədli, A.R.Əhmədzadə**
Milli Aerokosmik Agentliyinin Xüsusi Konstruktor Texnoloji Bürosu
AZ4200,Lənkəran şəhəri H.Abdullayevə küçəsi 17.
muharrembeyturan@gmail.com, ahmadzadearif@gmail.com,

**Xülasə**

Peyk texnologiyalarının torpaq istifadəçiliyində rolu, tətbiqi, alınan materialların emal olunması və üzərində əməliyyatları yerinə yetirərkən istifadə olunmasından və nəticədə səmərəsindən ibarətdir. Torpaq sahələrinin istifadəçilik bazası yarandıqdan sonra, sahələrin qiymətləndirilməsi aparılır. Qiymətləndirmə üçün müxtəlif mərhələlərdən keçirilir. Bu mərhələlərdən biri də, torpaq haqqında peyk verilənləri və ya , peyk məlumatları əsas rol oynayır.Peyk verilənlərinə əsas kimi: aeroşəkillər, radiolokasiyalı şəkillər, infraqırmızı və ya görünən şüa ilə alınan şəkillər aiddir. Aeroşəkillər əsasən, kənd təsərrüfatı sahələrinin, yəni uqodiyaların təhlilində, meşə və bitki örtüyünün qiymətləndirilməsi üçün əlverişlidir.Torpaq istifadəçiliyində topoqrafik planalma peyk məlumatlarının yerlə bağlanması və xəritə yaradılması üçün vacibdir. Peyk məlumatların alınması əsasən kosmosdan baş verir.

Torpaq istifadəçiliyində peyk materialları alındıqdan sonra yekun mərhələsində həmən materialların mütləq şəkildə müxtəlif proqram təminatları vasitəsilə emal edilir. Həmən emalın sonunda peyk verilənləri xəritəçilikdə, kənd təsərrüfatı və digər torpaq istifadəsinin ixtisaslaşmış sahələrində tətbiq olunur.

**Açar sözlər**:peyk texnologiyaları,aeroşəkillər,peyk məlumatları,xəritəçilik,kosmik fotoşəkillər
**Keywords:** satellite technologies, aerial photographs, satellite data, mapping, space photographs

**Giriş**

Peyk verilənlərinin emalı standart mərhələlərdən ibarət olsa da, bu mərhələlərin həyata keçirilməsi çox vaxt istifadə olunan proqram təminatından asılıdır. Bu gün peyk verilənlərin emal sistemində işlək stansiyalar və yüksək sürətli prosessorlu, iri həcmli yaddaş qurğuları olan fərdi kompyuterlərlər standarta çevrilib, bu da verilənlərin emal əməliyyatlarında uyğun tələbləri ödəyir. İndiki zamanda peyk verilənlərini və təsvirləri emal etmək üçün bir çox tətbiqi proqramlar yaradılıb. Ümumi təyinatlı təsvirlərin rəqəmsal emalı üçün, Adobe PhotoShop, Corel Photo-Paint və s. ixtisaslaşmış proqram vasitələrinin gələcək inkişafı nəticəsində peyk verilənlərinin emalı üçün sistemlər yaradıldı. Hər iki sistemlər ortaq cəhətə malikdir: rastr modellərlə işləyirlər, analoq riyazi cihaza əsaslanan üsullardan istifadə edərək təsvirləri emal edirlər . Lakin peyk verilənləri ilə bağlı bir sıra mövcud fərqləri qeyd etmək lazımdır: - peyk verilənləri – səmərəli iş üçün xüsusi vasitələr, həmçinin xüsusi formatlar tələb olunan iri həcmli fayllardır; - peyk verilənlərində pikselin rəqəmləri çəkilmiş hər hansı obyekt səciyyələrinin sahələrini bərpa edərkən vacib sayılır; - peyk verilənləri – RGB təsvirləri kimi şərh olunmasına icazəsi olmayan planalmanın spektral hissələrin çöxölçülü verilənləri, sayı və parametrləridir, bundan başqa verilənlərdə digər koordinat ölçmələri də istifadə oluna bilər; - peyk verilənləri ilkin həndəsi və radiometrik təshihə ehtiyac duyur; - peyk verilənləri – koordinat bağlantısı olan məkan informasiyalarıdır. - proqram təminatın verilənlər emalının vacib xüsusiyyəti ilkin emaldan və tematik deşifrələmədən, coğrafi informasiya vasitələri ilə modelləşdirmə və məkan analizinin icra edilməsinə cəld keçid imkanıdır[1].

**Material metod**

Peyk materiallar xəritəçilikdə əsasən – daha səmərəli hesab olunan kosmik planalma materialları aeroplanalmaya yaxınlaşır. Bu materiallar digər xəritə tərtibi üçün mənbələr qarşısında mühüm üstünlüyə malikdir[2]:

1.kosmik təsvirlərin müşahidəsi – hərtərəfli planalma zamanı qlobal əhatədən onlarca kilometrə qədər, iri məkanların səmərəli xəritələşdirilməsini təmin edir;

2.eyni ərazinin müxtəlif həlletmə və generalizasiya ilə kosmosdan planalması müxtəlif miqyaslı xəritələri yaratmağa və yeniləşdirməyə imkan verir;

3.təsvirin qurulduğu mərkəzi proyeksiya, proyektirlənmənin daha böyük yüksəkliyində ortoqonal proyeksiyaya yaxındır, bu da xəritə yaradılmasında fotoqrammetrik emalı asanlaşdırır;

4.verilmiş periodda təkrar planalmalar zamanda tez dəyişilən təbii prosesləri və halların dinamik monitorinqi və xəritələşdirməsini təmin edir;

5.mürəkkəb mövqeli – səhraların, yüksək dağlıq və s. ərazilərin əritələşdirilməsini təmin edir;

6.kosmik fotoşəkillərin ifadəliyi və əyaniliyi yeni kartoqrafik məhsul növlərinin – yer səthinin biofiziki səciyyələrinin peyk və fotoxəritələrinin yaranmasına şərait yaradır;

7.bir fotoşəkildə bütün yer landşaftlarının kompleks ifadəsi xəritələşdirilmiş obyektlərin məkan əlaqələrinin daha düzgün ötürülməsinə imkan verir.

Aerokosmik fotoşəkillər kartoqrafiyada topoqrafik xəritələrin yenilənməsində və

yaradılmasında müxtəlif istifadə sahəsini tapmışdır.Fotoşəkillərin istifadəsi yalnız sosial – iqtisadi tədqiqatlarda deyil, həmçinin kənd təsərrüfatı məqsədləri üçün də istifadə olunur. Aqrar sənaye hər bir ölkədə aparıcı rolu oynayır. Qida ərzaqlarının gəlirli istehsalı hər bir dövlətin məqsədidir. Əkinlərin və torpağın vəziyyətinin dəqiq və cari zaman informasiyası, gələcək məhsuldarlığın kəmiyyət və keyfiyyətinin qiyməti, aqrar məhsul qiymətinin proqnozu dünya və regional bazarın iqtisadiyyatına təsir göstərir . Kənd təsərrüfatı uqodiyaları yerləşən geniş əraziləri dəqiq xəritələrin olmadığından, monitorinqin inkişaf etməmiş məntəqə şəbəkələrinin, yerüstü stansiyaların,həmçinin metereoloji aviasiya dəstəyinin və s. olmamasından nəzarətdən saxlamaq nisbətən çətindir. Müxtəlif təbii proseslərin leyhinə əkin sahələrin sərhədlərinin dəyişilməsi, torpaq səciyyələrinin və müxətlif sahələrdə vegetasiya şərtlərinin dəyişilməsi çıxış edir[3].

Bütün bu amillər mövcud vəziyyətin, onun qiymətləndirilməsi və proqnozlaşdırılması üçün dürüst, cəld informasiyanın alınmasına maneçilik törədir. Bu olmadan isə, kənd təsərrüfatı məhsuldarlığının artırılması, torpaq istifadəçiliyinin optimallaşdırılması, məhsuldarlığın proqnozlaşdırılması, xərclərin azaldılması və gəlirin artırılması mümkünsüzdür. Peyk texnologiyaları kənd təsərrüfatı ərazilərinin idarə edilməsində bu cür məsələlərin həllində yardım edə bilər. Peyk monitorinqi vasitəsilə aqrotexniki işlərin keyfiyyətini, müddətini nəzarət altında saxlamağa, və kənd təsərrüfatı istehsalının idarə edilməsini opltimallaşdıra bilər. Fotoşəkillər əsasında torpaq

uqodiyalarının beynəlxalq torpaq istifadəçiliyinin təsnifatlaşdırılması əsasında inventarlaşdırması və xəritələşdirilməsi aparılır[4].

Mütəmadi planalmaların icra edilməsi ilə kənd təsərrüfatı bitkilərinin və məhsuldarlığın proqnozlaşdırılması inkişaf dinamikasının müşahidəsi aparılır. Məsələn, müxtəlif bitkilər üçün kənd təsərrüfatı təqvimini nəzərə alaraq, vegetasiya dövründə bitki örtüyünün spektral parlaqlığının dəyişilməsini bilərək, təsvirdə sahələrin rəng çalarına görə onların aqrotexniki vəziyyəti və bitkilərin tərkibi haqda fikir yürütmək olar.

Bitkilərin və onların yerləşdiyi sahələrin tərkibinin müəyyən edilməsi imkanı, fotoşəkilləri kənd təsərrüfatı statistikası üçün obyektiv mənbəyə çevirir. Satış üçün bitkilərin sahəsinin aşkara çıxarılması və onların inkişafının metereoloji amillərini nəzərə alaraq qiymətləndirilməsi, məhsuldarlığın proqnozlaşdırılması üçün kosmik informasiyanın istifadə imkanını təyin edir.

Qış fəslindən sonra payızlıq bitkilərinin vəziyyəti sağlam və məhv olmuş bitkilərin rəng müxtəlifliyi ilə, payızlıq və yazlıq bitkilərin vəziyyəti məhsulun yığımından əvvəl, torpaq səthinin cücərtilər ilə örtülməsi və onların bərabər paylanma dərəcəsini nəzərə alaraq qiymətləndirilir. Yüksək həlletməli fotoşəkillər əsasında əkinlərin – eynicinsliyi və ya donması, islanması, küləyə görə əyilməsi, zərərvericilərin təsiri ilə bağlı vəziyyəti qiymətləndirilir[5].




Şəkil 1. Birinci dekadada 2020-ci ilin iyun ayı üçün Azərbaycanın vegetasiyaindeksi xəritəsi.




Şəkil 2. İkinci dekadada 2020-ci ilin iyun ayı üçün Azərbaycanın vegetasiyaindeksi xəritəsi.




Şəkil 3. Üçüncü dekadada 2020-ci ilin iyun ayı üçün Azərbaycanın vegetasiya indeksi xəritəsi.




Şəkil 4.2020-ci ilin iyun ayı üçün Azərbaycanın vegetasiya indeksi xəritəsi

Peyk verilənlərinin kənd təsərrüfatında tətbiqi aşağıdakıları dəqiq həyata keçirməyə imkan verir[6]:

- kənd təsərrüfatı bitkilər növlərinin təsnifatını;
- əkinlərin vəziyyətinin qiymətləndirilməsi (əkinlərin inkişafı, yetişməsi və s.);
- payızlıq əkinlərin donma sahəsinin təyini, quraqlığın əvvəlcədən təyini;
- eroziya, bataqlıq, şorlaşma və səhralaşma sahələrinin seçilməsi;
- kənd təsərrüfatı bitkilərinin tələfi,xəstəliyi, həşərat ziyanı, deflyasiya, pestisidlərlər çirklənmə sahələrinin təyini;
- torpaqların vəziyyətini və səciyyəsini;
- məhsuldarlığın proqnozu (kəmiyyət və keyfiyyət göstəricisi);
- əkin sahələrinin inventarlaşdırma və kadastrı;
- otlaqların vəziyyətinin, xəstəlik və gəmiricilərin təsir dərəcəsinin, mal-qaranın yerləşdirilməsi nəticəsində bitki örtüyünün zədələndiyi zonanın monitorinqi;
- müxtəlif kənd təsərrüfatı tədbirlərinin keyfiyyinə nəzarət;

kənd təsərrüfatı fəaliyyətinin ümumi monitorinqi

Peyk fotoşəkillərində bu və ya başqa kənd təsərrüfatı fəaliyyətinə mənsub xüsusi cizgiləri çox yaxşı əks olunur.

Məsələn, səhralarda kənd təsərrüfatı suyu duzsullaşdıran qurğuların və nasos stansiyalarının işləməsilə süni suvarmaya əsaslanır. Burada əsasən buğda və tərəvəz əkilir və günəşdən qorunmaq üçün bir örtükdən istifadə olunur.

**Nəticə**

Torpaq istifadəçiliyi üçün peyk materiallarının istifadəsi vacib şərt olduğu istisna deyil. Buna görə də peyk vasitəsilə alınan informasiya aşağıdakı tələblərə cavab verməlidir: situasiyaya görə məntiqli təsnifatlaşdırma sxeminin tərtibi; tədqiq ərazisinin məkan həlletməsi; torpaq göstəricilərində olan dəyişikliklilərin kadastrı üçün müvəqqəti həlletmə, peyk verilənlərinin dəqiqliyinin maksimum dərəcədə olması; peyklə torpaq istifadəçiliyi məlumatlarının toplanması üçün ən səmərəli və şəffav üsulun seçilməsi.

Peyk vasitəsilə alınan verilənlərinin kifayət qədər etibarlı olmasını təmin etmək üçün çöl tədqiqatlarının və peyk materiallarının interpretasiyası təmin olunmalıdır. Bu da görüləcək işlərin dəqiqliyini artıra, görüləcək işlərin həcmini azaltmış olacaq.

Peyk verilənlərinin qruplaşdırılması təsvirlərin bərpa edilməsinə, spectral çevrilməsinə, tematik təsnifatlaşdırılmasına əsasən baş verir.

Peyk verilənləri sistemlərinin ortaq cəhətləri rastr modellərlə işləməsi və riyazi analoq cihazların istifadəsinə əsaslanaraq emaldan ibarətdir. Bu zaman verilənlərinin aşağıdakı meyarlarını qeyd etmək lazımdır: peyk verilənləri iri həcmli fayllardır, bu faylların piksellərinin rəqəmləri səciyyələndirmək üçün vacib sayılr, peyk verilənləri emaldan əvvəl radiometrik və həndəsi təshihi olmalıdır, peyk materiallarının məkan informasiyasının dəqiqliyi təmin etmək koordinat bağlantısı olmalıdır. Yekun mərhələdə isə, peyk verilənlərinin email üçün uyğun proqram təminatlarınını emal və analiz üçün istifadəsi mütləqdir.

**Ədəbiyyat**

1. Matthew M.W., Adler-Golden S.M., Berk A., Richtsmeier S.C., Levine R.Y., Bernstein L.S., Anderson G.P., (2000), Status of Asmospheric Correction Using a MODTRAN4-based Algorithm, SPIE Procceding Algorithms for Multispectral, Hyperspectral, and Ultraspectral imagery VI, 4049, (199-207)

2. Зотов Р.В.З-88 Аэрогеодезия: учебное пособие: в 2 книгах. Книга 2 /Р.В.Зотов. – Омск:СибАДИ, 2012. – 218 с.

3. Булавицкий В.Ф, Фотограмметрия и дистанционное зондирование территории : учеб.пос. / В.Ф. Булавицкий, Н.В. Жукова, Хабаровск, Изд-во ТОГУ, 2016, 129 с.

4. Bernardos J.N., Viglizzo E.F., Jouvet V., Lértora F.A., Pordomingo S.J., and Aid F.D. (2001). The use of EPIC modelto study the agroecological change during 93 years of farming transformation in the Argentine pampas.

5. Agricultural Systems, 69: pp. 215-234.

6. Малышев В. В., Красильщиков М.Н., Бобронников В. Т. и д.р. Спутниковые системы мониторинга. М.: МАИ, 2000

# KÜRƏTRAFI AXMAZLARIN SƏCİYYƏVİ XÜSUSİYYƏTLƏRİ

**B.f.d. SƏNUBƏR QULİYEVA**
Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)
Mühəndislik
Mühəndislik və tətbiqi elmlər
sama2013@bk.ru
Azərbaycan Respublikası, Bakı şəhəri

1. XÜLASƏ

Axmazlar tədqiq olunan kiçik ölçülü göllərdir. Onlardan - Yetimkür, Qaraoğlan, Qarxun, Mərzli (Mirzəli) və Aynalı axmazları vaxtikən Kür çayının iri döngəli meandrları olub və sonralar su-eroziya proseslərilə əsas çaydan ayrılaraq "axmaz gölə" çevriliblər.

SUMMARY. The ponds are small, studied lakes. Among them are Yetimkur, Garaoglan, Garkhun, Marzli (Mirzali) and Ainali, which were once large winding meanders of the Kura river, and later separated from the main river due to water erosion processes and turned into a "stagnant lake".

2. AÇAR SÖZLƏR: Transpirasiya, melandr

KEYWORD : Transpiration, melander

3. GİRİŞ

Kürətrafı bölgə Kür-Araz ovalığının mərkəz və həm də yüksəklik baxımından ən alçaq hissələrini əhatə edir. Ovalığın şimal sərhədini Böyük Qafqaz dağlarının cənub yamacları, qərb sərhədlərini Kiçik Qafqaz dağlarının şərq yamacları, cənub sərhədini Araz çayı, cənub-şərq sərhədini Talış dağlarının şimal yamacları və şərq sərhədlərini Xəzər dənizinin sahilləri təşkil edir.

Bu regionun fiziki-coğrafi xüsusiyyətləri müxtəlif tədqiqatçılar tərəfindən kifayət dərəcədə öyrənilərək nəticələr bir çox məqalə, xəritə və kitablarda öz əksini tapmışdır (Babayev, 2014).

Axmazların böyük qismi Kür çayının sol və sağ sahil zonalarında formalaşaraq ümumən Yevlax rayonu ərazisində yerləşirlər (Əhmədzadə, 2019). Üstdən görünüşləri qövsvari formanı xatırladır sahilləri çox hıssədə bataqlıqlaşmışdır (Şəkil 1,2,3,4. Şəkillər müəllifə aiddir).



Şəkil 1. Qaraoğlan axmazı (şəkillər müəllifə aiddir)



Şəkil 2. Mərzli (Mirzəli) axmazı

Təbii rejim dövründə axmazların əsas qidasını Kür çayının daşqın suları təşkil edirdi. Antropogen təsirli dövrdə axmaz göllər çay suları ilə qidalanmadan təcrid olunduğundan onların sahə və su həcmi azalır, su dövranı zəifləyir. Yaxınlıqdakı yaşayış məskənlərinin istifadədə olmuş artıq sularının axmazlara axıdılması onlardakı su kütləsinin minerallaşma dərəcəsinin artmasına və çirklənməsinə səbəb olub (Əhmədzadə, 2019).



Şəkil 3. Qarxun axmazı

Axmazlarda hidroloji planlama və monitorinq işləri aparılmadığından onların hidromorfoloji parametrləri haqqında məlumatlar təxmini xarakter daşıyır (Məmmədov, 2011). Axmazların əsas morfometrik göstəriciləri tədqiqatlara əsasən sahələrinin 20-70 ha, dərinliklərinin isə 1-3 m olmasıdır (Məmmədov, 2019).



Şəkil 4. Yetimkür axmazı

4. TƏDQİQATIN METODU

Bizim apardığımız çöl tədqiqatlarımızdan bəlli olur ki, tədqiq olunan axmazlarda kiçilmə prosesi baş verir, yəni onların sahə və su həcmləri azalır. Bu prosesi yaradan səbəblər aşağıdakilardır:

- çayların daşqın sularının axmazlara çatmaması,
- buxarlanma + transpirasiya ilə axmazlardan hər il ≥ 1000 mm suyun itməsi,
- bataqlıqlaşmış ərazilərin qurudulması, sahilə yaxın zonalarda torpaq bənd və yol tikilməsi.

5. NƏTİCƏ

Ümumən qeyd etmək olar ki, axmazlar və göllər kiçilmə və bataqlıqlaşma istiqamətində inkişaf edir.

Bölgənin böyük göllərinin hidroloji rejim xüsusiyyətlərinin əsasını qidalanma prosesi, səviyyə tərəddüdü, temperatur xüsusiyyətləri və kimyəvi göstəricilərin zaman və məkan daxilində dəyişmələri təşkil edir.

6. ƏDƏBİYYAT SİYAHISI

1. Babayev, R.A., Talıbov, Ə.T. (2014) Ekoloji vəziyyətin qiymətləndirilməsi /Azərbaycan Respublikasının Milli Atlası, - Bakı: Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi, - 30 s.

2. Əhmədzadə, Ə.C., Həşimov, A.C. (2016). Ensiklopediya, Meliorasiya və su təsərrüfatı. - Bakı: ”Radius”, - 632 s.

3. Quliyeva, S.A. (2018). Kürətrafı göllərdə və su tutarlarında iynəcə sürfələrinin (Odonata larva), növ tərkibi və yayılması // Lənkəran Dövlət Universiteti, Elmi Xəbərlər, Təbiət elmləri bölməsi, (1), 133 – 136 s.

4. Məmmədov, V.A. (2011). Kür çökəkliyi göllərinin ekohidroloji problemləri və onların tənzimlənməsinin əsas prinsipləri: / Coğrafiya üzrə doktorluq dis. - Bakı: Nafta - Press, - 340 s.

5. Məmmədov, V.A., Əliyev, S.İ., Salamov, Ə.M. (2019). Azərbaycan Respublikası Böyük göllərinin hidrokimyəvi xüsusiyyətləri və gölətrafı ərazilərin mühəndisi geofiziki şəraiti / - Bakı: Nafta - Press, - 347 s.

# LANDŞAFT XÜSUSIYYƏTLƏRININ PEYK TƏSVIRLƏRI VASITƏSILƏ QIYMƏTLƏNDIRILMƏSI METODLARI

**TÜRKAN ABBASOVA**
Bakı Mühəndislik Universiteti
Memarlıq və inşaat fakültəsi/Sənaye mühəndisliyi
*tabbasova2@std.beu.edu.az*
XIRDALAN, AZƏRBAYCAN

**t.f.d., AMİL AĞAYEV**
Bakı Mühəndislik Universiteti
Memarlıq və inşaat fakültəsi/Sənaye mühəndisliyi
aagayev@beu.edu.az
XIRDALAN,AZƏRBAYCAN

**XÜLASƏ**

Peyk təsvirləri landşaft xüsusiyyətlərini qiymətləndirmək üçün vacib bir vasitə kimi ortaya çıxdı, məkan və zaman miqyasında yer səthinin dinamikası haqqında dəyərli anlayışlar təmin etdi. Bu məqalə peyk şəkilləri vasitəsilə landşaftın qiymətləndirilməsinin metodologiyalarını və tətbiqlərini tədqiq edir. Bunlara məsafədən zondlamanın əsasları, təsvirin ilkin işlənməsi üsulları, xüsusiyyətlərin çıxarılması, təsnifat üsulları, dəyişikliklərin aşkarlanması və coğrafi məkan məlumatları ilə inteqrasiya daxildir. Məsafədən zondlama texnologiyalarından və coğrafi informasiya sistemlərindən istifadə etməklə müxtəlif yanaşmalarla, fərqli illərdə çəkilmiş təsvirlərlə landşaft dinamikasının dəyişmə tendensiyası izlənildi. Şəhər mühitinin genişlənməsi, əhali artımı və iqlim dəyişmələrinin landşaft xüsusiyyətlərinə təsiri göstərildi. Tədqiqat ərazisində mühüm dəyişikliklər, torpaq örtüyünün dəyişdiyi, yaşayış sahələrinin genişlənməsi, bitki örtüyünün və su hövzələrinin azalması müşahidə olundu. Peyk təsvirlərindən və cis texnologiyalarından istifadə etməklə landşaftın dinamik dəyişikliyini aydınlaşdırdı, antropogen təsirin məkan xusisiyyətlərinə münasibətini göstərdi və bu texnologiyaların tətbiqinin ərazi haqqında daha tez və böyük miqyasda təhlillər üçün faydalı olduğunu göstərdi.

**ABSTRACT**

Satellite imagery has emerged as an important tool for assessing landscape features, providing valuable insights into Earth surface dynamics at spatial and temporal scales. This article explores the methodologies and applications of landscape assessment through satellite imagery. These include the basics of remote sensing, image preprocessing techniques, feature extraction, classification techniques, change detection, and integration with geospatial data. Using remote sensing technologies and geographic information systems, the changing trend of landscape dynamics was monitored with different approaches and images taken in different years. The effects of urban environment expansion, population growth and climate changes on landscape features were shown. Significant changes were observed in the study area, land cover changed, residential areas expanded, vegetation cover and water bodies decreased. By using satellite images and GIS technologies, he clarified the dynamic change of the landscape, showed the relationship of anthropogenic influence to the spatial characteristics, and showed that the application of these technologies is useful for faster and large-scale analyzes of the area.

**AÇAR SÖZLƏR: Landşaft, Coğrafi İnformasiya Sistemləri, Məsafədən Zondlama, Peyk Təsvirləri, Landsat 5**

**KEY WORDS: Landscape, Geographic Information Systems, Remote Sensing, Satellite Images, Landsat 5**

## GIRIŞ

Görünməmiş texnoloji tərəqqi dövründə peyk görüntüləri Yer səthindəki landşaft xüsusiyyətlərini öyrənmək və anlamaq üçün güclü bir vasitə kimi ortaya çıxdı (Linda Jridi, Chariton Kalaitzidis and Dimitrios D. Alexakis. (2023) Quantitative Landscape Analysis Using Earth-Observation Data: An

Example from Chania, Crete, Greece. Land, 12, 999. https://doi.org/10.3390/land12050999. Yuxia Zhao, Yang Wang, Zifan Zhang, Yi Zhou, Haoqing Huang and Ming Chang. (2023). The Evolution of Landscape Patterns and Its Ecological Effects of Open-Pit Mining: A Case Study in the Heidaigou Mining Area, China. International Journal of Environmental Research and Public Health, 20, 4394. https://doi.org/10.3390/ijerph20054394). Təcrübədə landşaft göstəricilərinin seçimi nəzəriyyədən daha çox məlumatların mövcudluğuna əsaslanır. Landşaft təhlili məqsədi ilə müxtəlif məlumat mənbələrindən, yəni fotoşəkillər, yer örtüyü xəritələri, peyk şəkilləri, ortofotolar, çöl müşahidələri, siyahıyaalma statistikası və sorğuların nəticələrindən istifadə edilə bilər. Landşaft keyfiyyətinin qiymətləndirilməsində uzaqdan zondlama məlumatlarının istifadəsi ənənəvi sorğu metodları ilə müqayisədə həm əmək, həm də vaxt baxımından əhəmiyyətli qənaətə imkan verir (Linda Jridi, Chariton Kalaitzidis and Dimitrios D. Alexakis. (2023) Quantitative Landscape Analysis Using Earth-Observation Data: An Example from Chania, Crete, Greece. Land, 12, 999. https://doi.org/10.3390/land12050999)

Torpaqdan istifadədə dəyişikliklərin monitorinqindən tutmuş ətraf mühitin sağlamlığının qiymətləndirilməsinə qədər peyk şəkillərinin istifadəsi landşaftların dinamik təbiətini müxtəlif məkan və zaman miqyasında müşahidə etmək və təhlil etmək qabiliyyətimizi dəyişdi.

Bitki örtüyü, su obyektləri və topoqrafiya kimi təbii elementləri, eləcə də binalar və yollar kimi insan tərəfindən yaradılmış strukturları əhatə edən landşaft xüsusiyyətləri ekosistemlərin formalaşmasında, biomüxtəlifliyə təsir etməkdə və insanların yaşayış vasitələrinə təsir göstərməkdə mühüm rol oynayır (Klepers, A., & Lakovskis, P. (2022). Identification of landscapes of national importance using GIS. Socıety Technology Solutıons Proceedings of the International Scientific Conference). Bu xüsusiyyətlərin məkan paylanmasını, tərkibini və dinamikasını anlamaq effektiv torpaq idarəçiliyi, mühafizə səyləri, şəhərsalma, fəlakətlərə cavab tədbirləri və davamlı inkişaf üçün çox vacibdir.

Bəzi tədqiqatçılar tədqiqat sahəsində torpaqdan istifadə tipləri və landşaft nümunələrindəki dəyişiklikləri təhlil etmək üçün RS və GIS-dən istifadə etmiş və məkan və landşaft həssaslığının qiymətləndirilməsi daxil olmaqla müxtəlif kontekstlərdə tədqiqatlar aparmışdır (Choudhary, K.; Boori, M.S.; Kupriyanov, A. (2018). Spatial modelling for natural and environmental vulnerability through remote sensing and gis in Astrakhan, Russia. Egypt. J. Remote Sens. Space Sci. 21, 139–147. Li, H.; Peng, J.; Liu, Y.; Hu, Y. (2017). Urbanization impact on landscape patterns in Beijing City, China: A spatial heterogeneity perspective. Ecol. Indic. 82, 50–60. Min, K.; Song, K.; Chon, J. (2020). Key coastal landscape patterns for reducing flood vulnerability. Sci. Total Environ. 759, 143454). Choudhary öz araşdırmasında Rusiyanın Astraxan şəhərində torpaqdan istifadə və örtük dəyişikliyini tədqiq etmiş və bunun üçün zəiflik xəritəsi tərtib etmişdir. Bu araşdırma RS və CİS yanaşması əsasında landşaft quruluşunda çoxşaxəli yanaşmadan istifadə edərək zəifliyi müəyyən etmiş, qiymətləndirmiş və sinifləşdirmişdir. Nəticədə müşahidə olunmuşdur ki, tədqiqat sahəsi son 15 ildə müxtəlif torpaq istifadəsi, örtü və zəiflik dəyişiklikləri ilə üzləşmiş. Zaman keçdikcə isə bitki örtüyünün meşə sahələrini əvəz etdiyi ortaya çıxmışdır (Choudhary, K.; Boori, M.S.; Kupriyanov, A. (2018). Spatial modelling for natural and environmental vulnerability through remote sensing and gis in Astrakhan, Russia. Egypt. J. Remote Sens. Space Sci. 21, 139–147). Li isə tədqiqat işində Pekin şəhərində urbanizasiya ilə landşaft quruluşu arasındakı əlaqəni müxtəlif nümunələr əsasında öyrənmişdir. O, göstərmişdir ki, landşaft metrikası şəhərlərin genişlənməsinin xüsusiyyətlərini və əsas proseslərini üzə çıxara bilər. Nəticə isə sürətli urbanizasiya sayəsində Pekində insan fəaliyyətinin landşaft quruluşunu köklü surətdə dəyişdiyini göstərmişdir (Li, H.; Peng, J.; Liu, Y.; Hu, Y. (2017). Urbanization impact on landscape patterns in Beijing City, China: A spatial heterogeneity perspective. Ecol. Indic. 82, 50–60). Digər bir araşdırma aparan Kim isə sahil ərazilərin iqlimlə bağlı olaraq ekstremal hadisələrdən əziyyət çəkdiyinə diqqət ayırmışdır. Bu işdə əsas hədəf sahilyanı şəhərlərdə daşqının təsirini araşdırmaq və landşaft formalarının bu daşqınlara nə qədər tab gətirəcəyini müəyyən etmək olmuşdur. Nəticədə isə sahilyanı ərazilərin dözümlülüyünün artırılması üçün müxtəlif ekosistem xidmətlərinin fəaliyyət götərməsini uyğun bilmişdir və bu xidmətlərdə müxtəlif landşaft funksiyalarının əks olunması qərarına gəlmişdir (Min, K.; Song, K.; Chon, J. (2020). Key coastal landscape patterns for reducing flood vulnerability. Sci. Total Environ. 759, 143454).

Bu məqalə peyk görüntüləri vasitəsilə landşaft xüsusiyyətlərinin qiymətləndirilməsində istifadə olunan müxtəlif üsulları araşdırır. Məsafədən Zondlama (MZ) texnologiyalarından və Coğrafi

- Identify where vehicles and pedestrians interact or meet. Hot spot mapping of potential danger zones is useful.
- Limit vehicle movement in specific work areas at busy pedestrian times, such as break times, shift changes or home time.
- Provide a safe waiting area for visiting drivers during vehicle loading and unloading

What Pedestrians Should Do

- Avoid crossing the path of vehicles that are moving.
- Remain a safe distance away from vehicles that move.
- Do not enter ‘No Pedestrian’ zones or ‘Vehicles Only’ zones.
- Never walk behind a reversing vehicle. Remember: vehicles can have blind spots.

CONCLUSION

We may successfully tackle the issue of worker fatalities related to motor vehicle accidents in the workplace by prioritizing worker safety through these solutions: thorough assessments of workplace routes, comprehensive training programs for drivers and pedestrians, regular maintenance checks on vehicles, and fostering a culture of safety. As employers, it is our duty to see to it that each employee gets home safely at the end of the day.

**REFERENCES**

**1.https://www.besmart.ie/fs/doc/Small_Business/Documents/pedestrian-safety-in-the-workplace.pdf**

**(Pedestrian Safety in the Workplace)**

**2.https://injuryfacts.nsc.org/**

**(Pedestrian Vehicle Incidents)**

**3.https://www.osha.gov/**

**(Pedestrian traffic)**

**4.https://app.hauc-uk.org.uk/**

**(Footway and footpath work)**

**5.https://www.bls.gov/**

**(work-related transportation incidents)**

# EKOLOJI VERGILƏR EKOLOJI PROBLEMLƏRIN HƏLLI ISTIQAMƏTLƏRINDƏN BIRI KIMI

**QUMRU QULIYEVA**
Baki Mühəndislik Universiteti
Memarlıq və İnşaat fakültəsi/ Sənaye mühəndisliyi kafedrası
*qquliyeva@std.beu.edu.az*
BAKI, AZƏRBAYCAN

XÜLASƏ

Ekoloji problemlər son illərdə aktuallığı artan məsələlərdən biridir.Vaxtında kifayət qədər diqqətə alınmayan bu problem hal-hazırda bəşəriyyət üçün təhlükəyə çevrilmişdir. Ekoloji problemlərin bir sıra həlli yollari mövcuddur. Bu həll yollarından biri də iqtisadi alət kimi xarakterizə edilə bilən vergitutma üsuludur. Bu gün bir sıra ölkələrdə ekoloji probləmlərin həlli üçün ekoloji vergilərdən istifadə olunur. Ekoloji vergilər bizim üçün yeni ideya sayılsa da, Aİ-da ekoloji problemlərin qarşısını almaq üçün bu siyasətdən illərdir istifadə olunur.

**ABSTRACT**

Environmental problems is one of the most urgent issiues in recent years. This problem, which was not paid enough attention in time, has now become a threat to humanity. There are several solutions to environmental problems. One of these solutions is a method of taxation that can be characterized as an economic tool. Today, environmental taxes are using in some countries to solve envoirmental problems. Although environmental taxes are a new idea for us, this policy has been used for years to prevent environmental problems in The EU.

**AÇAR SÖZLƏR:** ekoloji vergilər-1, enerji vergisi-2, nəqliyyat vergisi-3, çirkləndirici vergilər-4, karbon vergisi-5, karbon ticarəti bazarı-6, karbon qiyməti-7.

**KEYS WORD:** environmental taxs-1, energy tax-2, transport tax-3, pollution taxes-4, carbon tax-5, carbon market-6, carbon pricing-7.

## GIRIŞ

Ətraf mühitin çirklənməsi probleminin tarixi çox da qədim deyil. Sənaye inqilabı ilə ciddi gündəmə gələn ətraf mühitin çirklənməsi problemi başlanğıcda ciddiyə alinmayan bir problem kimi görülmürdü. Bunun əsas səbəbi İnkişaf Etmiş Ölkələrin əsas məqsədinin iqtisadiyyat yönümlü inkişaf və artım olması idi. Lakin illər keçdikcə ekoloji problemlər getdikcə artmış və artım nəticəsində

dünyanın ekoloji tarazlığı da pozulmuş, insanların sağlamlığı üçün təhlükəyə çevrilmişdir. Ekoloji problemlər hətta insan həyatı üçün təhlükəyə çevrilmişdir.

Ekoloji tarazlığın pozulmasının mənfi nəticələri artmaqdadır və təhlükəyə səbəb olmaqdadır. Bunun üçün bütün diqqət və səylər ətraf mühitin çirklənməsinin azaldılması istiqamətinə yönəldilmişdir. Ətraf mühitin çirklənməsinin törətdiyi problemlər bütün dünyada həyatı təhdid etməklə yanaşı, həm də ciddi iqtisadi itkilərə səbəb olur. ətraf mühitin çirklənməsinin qarşısının alınması və ya azaldılması əsasən istehsal fəaliyyətinin ekoloji cəhətdən təmiz olmasından, təbii ehtiyatların səmərəli istifadəsindən, təbii sərvətlərin qorunmasından, maddələrin və materialların təkrar emalının artırılmasından asılıdır. ənənəvi qadağalar və cəzalandırıcı hüquqi tənzimləmələr ekoloji cəhətdən davamlı inkişafın iqtisadi cəhətini təşkil edən bu şərtləri yerinə yetirmək üçün yetərli deyil və bir çox ölkələr şəxsi və korperativ üstünlüklərin ekoloji cəhətdən təmiz forma almasını təmin etmək üçün maliyyə mexanizmlərindən, xüsusiə də vergilərdən yararlanılır.

Bu araşdırmanın məqsədi ətraf mühitin çirklənməsinin azaldılması və qarşısının alınması üçün həyata keçirilən ətraf mühitlə bağlı vergiləri nəzəri olaraq araşdırmaq və Azərbaycanda gələcəkdə ekoloji vergilərin tətbiqidir.

Məqalə içərisində ekoloji vergilərin növləri, müxtəlif ölkələrdə ekoloji vergilərin tətbiqi, karbon vergisi və karbon ticarəti haqqında məlumat veriləcəkdir.

**EKOLOJI VERGILƏRIN NÖVLƏRI**

Ekoloji vergilər 4 qrupa bölünür. Bura nəqliyyat vergiləri, enerji vergiləri, çirkləndirici vergilər və təbii sərvət vergiləri daxildir (environmental taxes, 2013)

*Enerji vergiləri*: ən mühüm ekoloji vergilərdən biri olan enerji vergisi bizim üçün yeni vergi növü saılsa da Avropa ölkələri üçün heç də yeni ekoloji vergi növü deyil. Avropa ölkələrində XX əsrin birinci rübündən enerjiyə vergilər tətbiq edilirdi. Bu zamanlar enerjiyə qoyulaan vergilərin arxasındakı əsas məqsədlər milli gəlirləri artırmaq və neft idxalına nəzarət etmək idi. Enerji məhsullarına qoyulan vergilərin əsas məqsədi ətraf mühiti qorumaq deyildi.

Enerji vergiləri istehsalçıları və istehlakçıları enerjiyə qənaət etməyə və alternativ enerjilərdən istifadənin artırılmasına təşviq edir. Cədvəl 1-də nəqliyyat vergilərinin əsas kateqoriyaları verilmişdir ki, bura nəqliyyat üçün istifadə olunan yanacaq məhsulları, stasionar məqsədlər üçün istifadə olunan enerji məhsulları, istixana qazları daxildir.

Cədvəl 1: Enerji vergilərinin bazası (nəqliyyat üçün istifadə olunan yanacaq daxil olmaqla)

| |
|---|
| • Nəqliyyat məqsədləri üçün istifadə olunan yanacaq məhsulları<br>1. Qurğuşunlu benzin<br>2. Qurğuşunsuz benzin<br>3. Dizel<br>4. Digər nəqliyyat yanacağı növləri (LPG, təbii qaz və s.) |
| • Stasionar məqsədlər üçün istifadə edilən enerji məhsulları<br>1. Yüngül yanacaq<br>2. Ağır yanacaq<br>3. Təbii qaz<br>4. Kömür<br>5. Bioyanacaq<br>6. Elektik enerjisi istehsalı və istehlakı<br>7. Regional istilik istehlakı və istehsalı<br>8. Digər enerji məhsulları |
| • İstixana qazları<br>1. Yanacaqların karbon tərkibi<br>2. Istixana qazları emissiyaları |

Mənbə: Avrupa birliğinde çevre vergisi gelirlerinin karşılaştırmalı analizi, 2020

*Nəqliyyat vergiləri:* Avropa komissiyasının məlumatına əsasən, nəqliyyat fəaliyyəti Avropada istixana qazı emissiyalarının 25%-ni təşkil edir və enerji sektorundan sonra emissiyaların ikinci ən böyük səbəbidir. Bundan başqa, Aİ-də istixana qazı emissiyalarının təxminən 20%-ni avtomobil nəqliyyatı təşkil edir. Buna görə də, son illərdə şəhərlərdə havanın çirklənməsi və nəqliyyat sıxlığının

azaldılması, həmçinin yolların tikintisi, bərpası və istifadəsinin maliyyələşdirilməsi üçün bir çox İEÖ-də gəlir və ekoloji siyasət aləti kimi nəqliyyat vergilərinə əhəmiyyət verilir. Bunun üçün də nəqliyyat vergisi ekoloji olaraq təmiz hesab edilən dəmir yolu nəqliyyatı, ictimai nəqliyyat kimi nəqliyyat vasitələrindən də alınır.

Cədvəl 2: Nəqliyyat vergilərinin bazası (nəqliyyat üçün yanacaq istisna olmaqla)

| |
|---|
| • Avtonəqliyyat vasitələrinin idxalı və ya satışı (birdəfəlik vergi) |
| • Avtonəqliyyat vasitələrinin qeydiyyatı və ya istifadəsi (təkrarlanan vergi: illik vergi və s.) |
| • Yoldan istifadə (məsələn, avtomobil yolu vergisi) |
| • Tıxaclara görə ödənişlər və yol/körpü rüsumları |
| • Digər n.qliyyat vasitələri (gəmilər, təyyarələr, dəmir yolları və s.) |
| • Uçuşlar və təyyarə biletləri |
| • Nəqliyyat vasitələrinin sığortası (ümumi sığorta vergiləri istisna olmaqla) |

Mənbə: Avrupa birliğinde çevre vergisi gelirlerinin karşılaştırmalı analizi, 2020

Cədvəl 2-də nəqliyyat vergilərinin növləri qeyd olunmuşdur ki, bunlara avtonəqliyyat, təyyarələrdən və gəmi nəqliyyatından alınan vergilər daxidir.

*Çirkləndirici vergilər:* Əhalinin sürətli artımı, sənayenin sürətli inkişafı başlıca olaraq urbanizasiya artımı və şəhərlərdə sıxlığın artımına gətirib çıxarır ki, bu da təbii ehtiyatlardan səmərəsiz istifadə və ətraf mühitin çirklənməsinə səbəb olur. Həmçinin şəhərlərdə havanın və suyun çirklənməsi, bərk və maye tullantıların artımı ilə nəticələnir. İEÖ həmçinin Aİ da tullantılarla mübarizə aparır, havanın və suyun çirklənməsinin qarşısının alınması ilə bağlı müxtəlif mübarizə tədbirləri görürlər. Bunlardan biri də çirklənmə vergiləridir.

Cədvəl 3-də çirkləndirici vergilərin əsas kateqoriyaları qeyd ounub ki, bura suya, havaya və torpağa atılan tullantılardan alınan vergilər daxildir.

Cədvəl 3: Çirkləndirici vergilərin bazası

| |
|---|
| • Havaya atılan ölçülmüş və ya təxmini emissiyalar<br>1. $NO_x$ emissiyaları<br>2. $SO_x$ emissiyaları<br>3. Digər emissiyalar ($CO_2$ istisna olmaqla) |
| • Ozon qatını zədələyən maddələr (məsələn, CFC-lər və ya halogenlər) |
| • Suya atılan ölçülmüş və ya təxmini tullantılar<br>1. Oksidləşə bilən maddələrin ölçülmüş və ya təxmin edilən tullantıları (BOD, COD)<br>2. Suya atılan digər ölçülmüş və ya təxmini tullantılar<br>3. Çirkab suların toplanması və emalı, sabit illik vergilər |
| • Diffuz mənbəli suyun çirklənməsi<br>1. Pestisidlər<br>2. Süni gübrələr<br>3. Gübrələr |
| • Tullantıların idarə edilməsi<br>1. Toplama, təmizləmə və ya utilizasiya<br>2. Fərdi məhsullar (məsələn; qablaşdırma məhsulları, batareyalar və s.) |
| • Səs-küy çirklənməsi (məsələn; təyyarənin qalxması və enməsi) |

Mənbə: Avrupa birliğinde çevre vergisi gelirlerinin karşılaştırmalı analizi, 2020

*Təbii sərvətlər vergiləri:* təbii ehtiyatlardan istifadə bəşəriyyət yaranandan bəri vardır və davam etməkdədir. Təbii resursların tükənməsi, iqlim dəyiiikliyi və digər ekoloji problemlər təbii ehtiyatların səmərəsiz istifadəsi nəticəsində yaranır. Bir çox təçğşkilatlar təbii ehtiyatların istifadəsinin hələ də artmaqda oldğunu qeyd edirlər. Bu artımın qarşısının almaq üçün hökumətlər təbii sərvətlərdən istifadəyə görə vergi toplayırlar. Təbii sərvətlər vergiləri su, meşə ehtiyatlarından, flora və fauna ehtiyatlarından istifadəyə görə alınan vergilərdir. Ovçuluq və balıqçılıq da təbii ehtiyatların istifadəsi sayıldığı üçn bu kateqoriya vergilərə aid edilir. Təbii ehtiyatlardan alınan vergilərin növləri Cədvəl 4-də daha geniş verilmişdir.

Cədvəl 4: Təbii sərvət vergilərinin bazası

| |
|---|
| • Suyun çıxarılması (quyudan və ya hər hansı mənbədən) |
| • Bioloji ehtiyatların istifadəsi (məsələn; kağız-selülioz istehsalı) |
| • Xammalın çıxarılması ( məsələn; neft və qaz çıxarılması) |
| • Landşaft dəyişiklikləri və ağac kəsimi |

Mənbə: Avrupa birliğinde çevre vergisi gelirlerinin karşılaştırmalı analizi, 2020

## 4. MÜXTƏLIF ÖLKƏLƏRDƏ EKOLOJI VERGILƏR

Məlumdur ki bir çox İEÖ-də ekoloji vergilər tətbiq edilir. Ekoloji vergilərdən əldə olunan gəlirlər heç də kiçik rəqəmlər deyil. Burada bəzi ölkələrin tətbiq etdiyi ekoloji vergilər haqqında məlumat veriləcəkdir. Isveçrə, Kanada, Niderland, Almaniya və İsveçin tətbiq etdiyi ekoloji vergilərə yer veriləcəkdir.

*İsveçrə*

Isveçrə hələ 2008-ci ildən stasionar mənbələrdə istifadə olunan qalıq yanacaqlara $CO_2$ vergisi tətbiq edirdi. Vergi ölkənin istixana qazı emissiyalarının təxminən 40%-ni təşkil edirdi. Bu vergi 2022-ci ildən 120 CHF/ton $CO_2$ səviyyəsində müəyyənləşdirilib. Isveçrənin ekoloji vergilərin ən çox pay sahibi olan vergi növü enerji vergiləridir ki 51% təşkil edir. Isveçrənin karbon vergilərdən əldə etdiyi gəlirlər yenidən bölüşdürmə siyasətilə əhaliyə bölüşdürülür. 2018-ci ildə İsveçrə Federal Ətraf Mühit İdarəsi (FOEN) karbon vergisi gəlirlərinin 1.2 milyard CHF (1.1 milyard avro) olacağını və hər bir vətəndaşa 88.8 CHF (82.5 avro) ayrılacağını qeyd etmişdir.

Şəkil 1-dən də göründüyü kimi Lixtenşeyn Avropada hər ton üçün ən çox vergi qoyan ölkədir. Lixtenşteynlə yanaşı, İsveç ikinci, Norveç isə üçüncü ən çox vergi qoyan ölkədir. Ən az karbon vergisi qoyan ölkə isə Ukraynadır.

**Şəkil 1**: Avropada karbon vergisinin xəritəsi.




**Mənbə**: taxfoundation.org

*Niderland*

Niderland da ekoloji vergilərə görə qabaqcıl ölkələrdən biridir. 1988-ci ildən Niderlandda ekoloji vergilər tətbiq edilir. $CO_2$ enerji vergisinin hələ 1992-ci ildən həyata keçirilir. Daha sonra 1996-cı ildə ekoloji vergi islahatı həyata keçirilməyə başlandı. Bu çərçivədə yanacaq, təbii qaz və elektrik enerjisi istehlakı vergiyə cəlb edildi. Vergi miqdarı isə bir qiqacoul enerji üçün 0.39 gulden (0.20 euro) və bir ton $CO_2$ başına 4.70 gulden (2.40 euro) alınır. Bununla yanaşı, bəzi vergi güzəştləri də edilir. Belə ki, böyük enerji sektorlarında fəaliyyət göstərən şirkətlər və iri istixana təsərrüfatı obyektləri üçün müəyyən güzəştlər edilib. Məsələn, təbii qaz vergidən tamamilə azaddır. Bundan əlavə olaraq, Niderlandda çirkləndirici vergilər və nəqliyyat vergisi də təbiq olunur.

*Almaniya*

Almaniyada da ekoloji vergilər tətbiq olunmaqdadır. 1999-cu ildə Almaniyada ekoloji vergilər islahatı keçirildi və bu islahat mərhələli şəkildə həyata keçirilməsi qərara alındı. Yeni qaydalar çərçivəsində ekoloji vergi artımları həyata keçirilmişdir. 2005-ci ilə qədər ekoloji vergilərdən əldə olunan gəlirlərdə ciddi bir arım yaşandı.

Almaniyada 2021-ci ildə ekoloji vergilərdən əldə olunan gəlir 68 milyard avro olmuşdur. ən böyük pay isə enerji vergilərinə düşür ki, 37.2 milyard avro, daha sonrakı yeri isə avtomobil vergisi (9.5 milyard avro) tutur. Ekoloji vergi gəlirləri 2005 və 2021 illəri arasında 23.3% artım göstərmişdir (OECD, 2021). Ekoloji vergilərin ümumi vergi gəlirindəki payı 8.2%-dir.

*Kanada*

Kanada da ekoloji vergilərin tətbiq olunduğu ölkələrdən biridir. 2020-ci il Kanadada ekoloji vergilər 26 milyard dollar təşkil etmişdir. 2010-2020-ci illər ərzində geniş tətbiq olunmağa başlayan ekoloji vergilər iqlim dəyişikliyi ilə mübarizə və dəyişən iqlimə qayanıqlılıqüçün əsas vasitələrdən biri kimi tətbiq edilməyə başlandı. Kanadada tətbiq edilən 2019-cu ildə İstixana Qazlarının Çirklənməsinin Qiymətləndirilməsi Aktı da bu təşəbbüslərdən biri idi. Bu qanun federal karbon çirklənməsinin qiymətləndirmə sistemi üçün çərçivə yaratdı. Hökumətin ekoloji vergilərdən topladığı vergilər ümumi büdcədə də heç də az sayılmayacaq gəlir gətirib. Şəkil 2-də Kanadanın 2010-2020-ci illər arasında ekoloji vergi növlərinin büdcəyə nə qədər gəlir gətirdiyi qeyd olunub. Burada ən çox pay sahibi enerji vergisi və nəqliyyat vergisidir.

**Şəkil 2**: Kanadada toplanan ekoloji vergilərin növləri.




Mənbə: seea.un.org

*Isveç*

Isveçin ümumi ekoloji vergi gəliri 2020-ci ildə 97 milyard isveç kronu təşkil edir ki bu ÜDM-nin 1.6%-ni təşkil edir. Burada ən çox payı karbon və enerji vergisi tutur. Karbon və enerji vergisi gəlirlərinə ən çox tövhə verən isə ev təsərrüfatlarıdır. Bu arada, istehsal sektoru 2021-ci il statistikalarına əsasən İsveçin istixana qazı emissiyalarının 28%-ni buraxsa da, karbon vergisinin yalnız 11%-ni və enerji vergisinin isə 4%-ni ödəyir. Bu fərqin səbəbi istehsal sektorunda enerji və karbon vergisi üçün müəyyən güzəştlərin olmasıdır.

**Şəkil 3**: İsveçdə ekoloji vergilərin ümumi vergilərdə faiz nisbəti.




**Mənbə:** scb.se

Şəkil 3-də ümumi ekoloji vergilərin 1993-2020-ci illərdə dəyişimi əks olunub. Şəkildən də göründüyü kimi 2009-cu ildən artıq ekoloji vergilərin büdcədəki pay faizi azalmaqdadır. 2021-ci ildə ən yüksək gəlir əldə olunsa da ÜDM-in tərkibindəki payı azalmaqdadır.

**KARBON VERGISI VƏ KARBON TICARƏTI HAQQINDA**

Karbon vergisi nəqliyyat və enerji sektorunda yanacaqların tərkibindəki karbon miqdarına görə vergidir. Karbon vergiləri karbon qiymətlərinin müəyyən formasıdır. Karbon vergisi termini karbon qazına ekvivalent vergiyə istinad etmək üçün də istifadə olunur. Bu, olduqca oxşardır, lakin istənilən iqtisadi sektor tərəfindən buraxılan istənilən istixana qazına və ya istixana qazlarının birləşməsinə tətbiq edilə bilər.

Malın istehsalı və ya istifadəsi zamanı karbon qazı ($CO_2$) ətraf mühitə buraxıldıqda, $CO_2$ alıcı və ya satıcıdan başqa kiməsə ziyan vurur və bu zərəri nə alıcı, nə də satıcı ödəmir.

$CO_2$ emissiyalarını izləmək asandır, çünki emissiyaların 94 faizi qalıq yanacaqların yandırılması nəticəsində yaranır. Bundan əlavə, $CO_2$ emissiyaları yalnız yanacağın karbon tərkibindən asılıdır, buna görə də bir çox qalıq yanacaq şirkətinə vergi qoyulması daha məqsədə uyğundur.

$CO_2$ emissiyalarının dünya üzrə dəyəri hər ton $CO_2$ emissiyası üçün 43 dollar olaraq qiymətləndirilir. Düşünülür ki, tam karbon vergisi dərəcəsini mərhələli şəkildə tətbiq etmək əvəzinə, dərhal tətbiq etmək ən səmərəlisidir.

*Karbonun qiyməti nə qədərdir?*

Karbon qiyməti adətən malların və ya xidmətlərin karbon tərkibindən götürülən karbon emissiyalarına görə ödənişdir. Karbon qiymətləri ya zaman keçdikcə artan xərclər tətbiq etməklə məhsul istehsalının daha təmiz yollarını təşviq edir, ya da qiymətləri artırmaqla yüksək karbonlu mal və xidmətlərə tələbi azaldır.

Karbon qiymətinin məqsədi çirkləndiricilərə emissiyaları üçün ödəniş etmək yolu ilə karbon emissiyalarının azaldılmasını təmin etməkdir.

Bu günə qədər 40-dan çox ölkədə, o cümlədən Aİ, Yeni Zelandiya, Hindistan, Meksika və Çində karbon qiymətlərinin müəyyən forması tətbiq edilmişdir. Ümumilikdə, qlobal istixana qazı emissiyalarının təxminən 25%-ni təşkil etdiyi düşünülür.

*Karbon ticarəti*

Karbon ticarəti karbon üçün sabit qiymət təyin etmir, əksinə, bazara emissiya edən karbonun nə qədər başa gələcəyinə qərar verməyə imkan verir. Ticarət sxemləri zaman keçdikcə sayı azalan məhdud sayda emissiya icazələri verməklə, Hökumət tərəfindən idarə olunan karbon vergisi ilə əlaqəli qeyri-müəyyənliyin qarşısını almağı hədəfləyir.

Karbon ticarətinə misal Aİ ETS-dir. Burada karbon emissiyaları elektrik stansiyalarından, sənayedən və digər sektorlardan emissiyaları əhatə etmək üçün müavinətlərin verildiyi hərraclar vasitəsilə alınıb satıla bilər.

*Ümumdünya karbon qiymətləri*

Kanadada 2020-ci ildə ton başına 30 dollarlıq karbon vergisi planı (2023-cü ildə hər ton üçün 50 dollara yüksələcək) həm karbon emissiya edən sənayelər, həm də istehlakçılar üçün tətbiq edilir. Ev başına karbon üçün ödənilən qiymət, məsələn, Ontarioda 439 dollardan Saskaçevanda 720 dollardan hesablanır. Lakin ev təsərrüfatlarından yığılan pullar vergi bəyannamələri vasitəsilə onlara qaytarılır. və əksəriyyəti (70%) əslində karbon üçün ödədiklərindən çoxunu geri alır. Bu, planın ev təsərrüfatları üçün məqbulluğunu artırır, lakin bu, hələ də hamı tərəfindən populyar deyil. Ontariodakı baş nazir əvvəllər bunu "indiyə qədərki ən pis vergi" adlandırmışdı.

Eynilə, Avstraliyada karbon vergisi siyasi olaraq bölücü bir məsələ olmuşdur. 2012-ci ildə hər ton karbon üçün təxminən 15 avro məbləğində karbon vergisi tətbiq edildi, lakin cəmi iki il sonra müxalifət partiyası seçkidə qalib gəldikdən sonra ləğv edildi.

Ekoloji vergitutma son bir neçə onillikdə siyasət gündəliyinin davamlı xüsusiyyəti olmuşdur. Bu, son illərdə Aİ-də ÜDM-in təxminən 2,5 faizini və ümumi vergilərin 6 faizini təşkil edirdi.

Karbon gəlirləri həm ətraf mühit, həm də iqtisadiyyat üçün getdikcə daha vacib maliyyələşdirmə alətinə çevrilir. 2016-cı ildə 22 milyard dollar gəlir gətirən karbon qiymətləri gəlirləri 2017-ci ildə 32 milyard dollara çatıb.

Karbon qiymətləri aşağı olaraq qalır. Bölgədən bölgəyə dəyişsə də, 2018-ci ildə bir ton karbonun qiyməti 1 ABŞ dolları ilə 119 ABŞ dolları arasında dəyişir. Bununla belə, karbon qiymətləri ilə

tənzimlənən emissiyaların 75%-dən çoxu 10 ABŞ dollarından aşağı olur. Bu qiymət həm dövlət, həm də özəl sektorda aşağı karbonlu iqtisadiyyata keçidi dəstəkləmək üçün çox aşağı hesab olunur.

2018-ci ildə karbon qiymətləri 2 $^0$C hədəfinə uyğun səviyyədə deyil. Məşhur iqtisadçılar Stern və Stiglitz-in rəhbərlik etdiyi Yüksək Səviyyəli Karbon Qiymətləndirmə Komissiyası, davamlı inkişafı təmin etməklə yanaşı, beynəlxalq ictimaiyyətin iqlim dəyişikliyi ilə bağlı hədəflərinə nail olmaq üçün karbon qiymətlərinin 2030-cu ildə bir ton üçün 100 dollar olması lazım olduğunu vurğulanır.

**NƏTICƏ**

Ekoloji problemlərin həllində iqtisadi vasitələrin əhəmiyyəti artır və artmaqdadır. Klassik vasitələrdən olan əmr və qadağalar əvəzinə, istehsalçıların və istehlakçıların öz xərclərini azaltması , yəni daha az vergi ödəmək üçün ətraf mühiti qorumaq istəyinin yaradılması daha uğurlu görünür. müəyyən edilmişdir ki, ekoloji vergi gəlirlərinin ümumi vergi daxilolmalarında və ÜDM-də payı ölkələr üzrə dəyişir. Bundan əlavə, bu fərq vergi növləri, iqtisadi və sənaye fəaliyətləri baxımından da keçərlidir. Fərqin əsas səbəbiləri: ölkələr üzrə siyasi, inzibati, iqtisadi, maliyyə, ekoloji və mədəni nöqteyi-nəzərdən fərqlilik olmasıdır.

Nümunə kimi göstərilən ölkələrdəki təcrübələr həmin siyasətin gündən-günə daha geniş yayılmaqda olduğunu göstəricisidir. 1990 -cı illərdə bu mövzuda araşdırmaların və səylərin artdığı bizə məlumdur. Bu baxımdan İnkişaf Etmiş Ölkələrdə təcrübələrin indiyədək uğurlu nəticələr verməsi də digər ölkələri də həvəsləndirir. Bu sahədəki inkişaf və təşəbbüslərin yaxın gələcəkdə bəzi ölkələrdə də ümumi $CO_2$ və ya enerji vergisinin tətbiq ediləcəyidir.

Bu kontekstdə Azərbaycan bu mövzuda yeni inkişaflara hazır olmalıdır. Ətraf mühitimizi qorumaq üçün ölkəmizdə bu sahədə fəaliyyətə indidən başlamaq məqsədəuyğun olardı.

**ƏDƏBİYYAT SİYAHISI**

1. DEĞİRMENDERELİ A. (2000). Çeşitli ülkelerde uygulanan ekolojik vergiler. Afyon Kocatepe Üniversitesi İktisadi Ve İdari Bilimler Fakültesi Dergisi, 2(1), 251-266.

2. DİKMEN, S., & ÇİÇEK H. G. (2020). Avrupa birliğinde çevre vergisi gelirlerinin karşılaştırmalı analizi. Erciyes Üniversitesi İktisadi Bilimler Fakültesi Dergisi, 57, 58-88.

3. EKMEN, E. (1998). Avrupa Birliği veTürkiyenin çevre politikalarının karşılaştırmalı incelemesi. İktisadi Kalkınma Vakfı Yayınları, 153.

4. JAMALİ, T. (2005). Ekolojik vergiler. İstanbul Üniversitesi Sosyal Bilimler Enstitüsü Mali Hukuk Anabilimidalı Doktora Tezi, 213-220.

5. SATIR, R.A. (2014). Çevre Ekonomisinde Çevre Vergileri Uygulamaları. Hitit Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi, 7(1), 110-120

# AZƏRBAYCANDA EKOTURİZMİN İNKİŞAF ETDİRİLMƏSİNDƏ ALTIAĞAC MİLLİ PARKININ ƏHƏMİYYƏTİ
# THE İMPORTANCE OF ALTİAGAC NATİONAL PARK İN THE DEVELOPMENT OF ECOTOURİSM İN AZERBAİJAN

**Şəhla Əlifova**
Bakı Mühəndislik Universiteti
Memarlıq və İnşaat Fakültəsi
selifova@std.beu.edu.az
Xırdalan, Azərbaycan

**Elçin Sultanov**
Bakı Mühəndislik Universiteti
Memarlıq və İnşaat Fakültəsi
elchin59@gmail.com
Xırdalan, Azərbaycan

***Summary:*** Tourism, including ecotourism, has not yet formed as the main economic support in Azerbaijan. Despite this, tourism is expected to expand rapidly and become the most important economic prospect of the 21st century in the country. Also, among the main goals set in the field of tourism development in Azerbaijan, the study of tourism resources and their expansion, the development of tourism types, especially the development of ecotourism, are among the main directions. Ecotourism provides effective economic incentives to preserve and increase the diversity of natural complexes and helps to preserve the natural and cultural heritage of our planet. Altiagac National Park is an ideal place for ecotourism in our country. Altiagac National Park allows visitors to immerse themselves in the beauty of nature with its unique ecosystem, charming landscape with lakes, and wildlife.

**Keywords:** ecotourism, national park, altiagac, ecosystem, fauna, flora

**Значение Алтыагаджсково национального парка в развитии экотуризма в Азербайджане**

***Резюме:*** Туризм, в том числе экотуризм, еще не сформировался в качестве основной экономической опоры в Азербайджане. Несмотря на это, ожидается, что туризм будет быстро расширяться и станет самой важной экономической перспективой 21 века в стране. Также среди основных целей, поставленных в сфере развития туризма в Азербайджане, изучение туристических ресурсов и их расширение, развитие видов туризма, особенно развитие экотуризма, являются одними из основных направлений. Экотуризм дает эффективные экономические стимулы для сохранения и приумножения разнообразия природных комплексов, способствует сохранению природного и культурного наследия нашей планеты. Алтыагаджский национальный парк – идеальное место для экотуризма в нашей стране. Национальный парк Алтыагадж позволяет посетителям погрузиться в красоту природы с ее уникальной экосистемой, очаровательным ландшафтом с озерами и дикой природой.

**Ключевые слова***:* экотуризм, национальный парк, алтыагадж, экосистема, фауна, флора

## Giriş

Azərbaycan təbiətinin mühafizə olunması istiqamətində mühüm addımlar atılmış və xeyli işlər görülmüşdür ki, ən əhəmiyyətlisi nəsli tükənməkdə olan bitki və heyvan növlərini qorumaq üçün qoruqların, yasaqlıqların, milli parkların təşkil olunması olmuşdur. Hazırda Azərbaycanda mühafizə olunan təbiət əraziləri ölkə ərazisinin 10.31% təşkil edir. Bölgəmizdə qorunan ərazilərin müxtəlif kateqoriyaları var: təbiət qoruqları, milli parklar, yasaqlıqlar, təbiət parkları və s. Bunlardan ölkə ərazisində 10 milli park, 10 dövlət təbiət qoruğu, 24 yasaqlıq fəaliyyət göstərir. Milli park ikinci ən yüksək mühafizə kateqoriyasına daxildir. Azərbaycan Respublikası ərazisində ətraf mühitin mühafizə

olunmasında milli parkların rolu zamanla artmaqdadır və böyük əhəmiyyəti vardır. Ölkə tarixində və hal hazırda milli parkların yaradılmasında mövcud olan məqsədlərlə yanaşı turizmin bölmələrindən biri olan təbiətin mühafizəsini təmin edən ekoloji turizm, yaşıl turizm üçün daha zəngin imkanlar və əlverişli şərait yaratmışdır. Bu ərazilərin əsas məqsədi təbiəti qorumaq məqsədi olduğundan ekoturizmin düzgün inkişaf etdirilməsi və idarə olunması vacibdir, əks halda mənfi nəticələr gözlənilən müsbət nəticələrin qarşısını ala bilər. Bundan əlavə, milli parkın ekoturizmdəki rolu ətraf mühitin və biomüxtəlifliyin qorunmasına da töhfə verir. Məsuliyyətli turizm nümunələri vasitəsilə milli park mühafizənin əhəmiyyəti haqqında məlumatlılığı artıra, davamlı davranışı təşviq edə və nəsli kəsilməkdə olan növlərin qorunmasını dəstəkləyə bilər.

Belə xüsusi qorunan ərazilərdən də biri Altıağac Milli Parkıdır. Altıağac Milli Parkı Azərbaycan Respublikası Prezidentinin 365 №-li Sərəncamı ilə 2004-cü il 31 avqust tarixində Xızı və Siyəzən rayonlarının inzibati ərazilərində yaradılmışdır. Milli Park Azərbaycanın şimal-şərqində, Xızı və Siyəzən inzibati rayonlarının ərazisində yerləşir. Altıağac Milli Parkı 1990-cı ildə yaradılmış Altıağac Dövlət Təbiət Qoruğu və ona həmsərhəd olan dövlət meşə fondu torpaqlarının bazasında yaradılmışdır. Ərazisi 11035 hektardır. Milli Parkın yaradılmasında əsas məqsəd Böyük Qafqazın cənub-şərq yamaclarının təbii landşaftlarının, flora və fauna növlərinin qorunub saxlanılması, bərpası, təbii komplekslərin mühafizəsinin gücləndirilməsi, ekoloji monitorinqin həyata keçirilməsi, eləcə də, tədqiqatlar, turizm və istirahət (rekreasiya) üçün şəraitin yaradılması və əhalinin ekoloji cəhətdən maarifləndirilməsinin təşkilidir.

Altıağac Milli Parkının adının mənşəyi məsafə ölçü vahidi olan "ağac" sözündən götürülmüşdür. Milli Park Şamaxıdan altı ağac məsafəsində yerləşdiyindən ona və kəndlərin birinə Altıağac adı verilmişdir (bir ağac təqribən 5-6 km-ə bərabərdir). Milli Parkın ərazisində qonur dağ-meşə, çürüntülü-karbonatlı dağ-meşə, qəhvəyi dağ-meşə, bozqırlaşmış dağ-çəmən və s. torpaq tipləri yayılmışdır. Altıağac Milli Parkının ərazisindən Ataçay və onun bir sıra kiçik qolları keçir. Ataçay öz başlanğıcını Dübrar dağının 2205 metr hündürlüyündən götürərək, Xəzər dənizinə tökülür. Suyundan suvarma məqsədləri üçün istifadə olunur (www.eco.gov.az).Altıağac Milli Parkı yerləşdiyi Xızı rayonu Azərbaycanın şimal-şərqindədir və Respublikamızın paytaxtı Bakı şəhərinə ən yaxın dağlıq rayondur. Ərazisi 1,668 min kv.km., əhalisi 15500 nəfərdir. Abşeron iqtisadi rayonuna daxildir. İqlim şəraiti mülayimdir və quru havaya malikdir.

Böyük Qafqazın özünəməxsus müxtəlif torpaq örtüyü vardır. Böyük Qafqazın torpaq örtüyü bir sıra tədqiqatçılar tərəfindən öyrənilmişdir.

Aparılmış tədqiqatlar nəticəsində Altıağac Milli Parkının ərazisində aşağıdakı torpaq yarımtipləri müəyyən olunmuşdur: tipik qonur dağ-meşə 788 ha (7,0 %), tipikçimli karbonatlı dağ-meşə 2028 ha (18,4 %), karbonatlı dağ-meşə qəhvəyi 5986 ha (54,2%), bozqırlaşmış dağ qəhvəyi 1563 ha (14,2 %), qleyvari çimli dağ çəmən 1686 ha (6.2%) və həmin torpaqların müasir bio-ekeloji səciyyəsi verilmişdir. Bu ərazi torpaqlarının əmələgəlmə şəraiti aşağıdakı amillərlə şərtlənir: 1) torpaqəmələgətirən süxurların tərkibi və geoloji quruluşu; 2) bitki örtüyü; 3) iqlim şəraiti; 4) antropogen amillər.

İstər torpaq əmələ gəlmə prosesində, istərsə eroziya prosesinin qarşısının alınmasında, istərsə də daşqınların formalaşmasında bitki örtüyünün rolu olduqca böyükdür [18].

Böyük Qafqazın şimal-şərq yamacının bitki örtüyünü A.A.Qrossheym, L.İ.Prilipko, V.İ.Quliyev və başqa tədqiqatçılar ətraflı təsvir etmiş və aşağıdakı bitki zonalarını ayırmışlar:

1. Dağ-çəmən
2. Meşə
3. Bozqır
4. Yarımsəhra

Burada dağ-çəmən zonası dəniz səviyyəsindən 1700-3500 m yüksəklikdə yerləşir. Bu zona subalp və alp çəmənliklərindən ibarətdir. Çəmən zonasının otlaqlarında mal-qaranın sistemsiz otarılması nəticəsində bitki örtüyü məhv olur. çim qatı pozulur. Belə sahələrdə eroziya prosesi şiddətli gedir. Meşə zonası rayonun şimal-qərb, şimal və şimal-şərq hissəsini əhatə edir. Burada əsas ağac bitkilərindən fısdıq, palıd, vələs, ardıc, qarağac və s. rast gəlinir . Yay dövründə temperaturun yüksək olması və rütubətin çatışmaması nəticəsində bu bitkilər quruyaraq məhv olurlar. Məlumdur ki, Böyük Qafqazın şimal-şərq yamaclarında torpaqlar, Azərbaycan respublikasının digər regionlarında olduğu kimi, şaquli zonallıq qanununa uyğun olaraq yayılmışlar.

Altıağac MP-nın bitki örtüyünün öyrənilməsi Azərbaycan florasının tədqiqi ilə birlikdə aparılıb. Böyük Qafqazın şimal-şərq hissəsinin bitki örtüyü A.A.Qrossheym , L.İ. Prilipko , K.S. Əsədov , Ş.Q.Hüseynov ,P.M.Əfəndiyev, K.S. Əsədov, F.M. Məmmədov və s. tərəfindən öyrənilmişdir. Tədqiqatları nəticəsində belə qənaətə gəlmək olar ki, ərazinin əsas hissəsini meşə ilə örütülü sahə 90,45%, meşəsiz sahələr isə 9,55% tutur.

Ərazinin meşə ilə örtülü sahəsi qafqaz palıdı, qafqaz vələsi və şərq fıstığının üstünlüyü ilə təşkil olunmuşdur. Bu meşələrdə eləcə də adi göyrüş, ağcaqayın və yabanı meyvə növləri (alma, armud və s.) rast gəlinir.

Tədqiqat apardığımız ərazi üçün ədəbiyyat məlumatlarını təhlil edən zaman ornitofauna üçün yalnız K.M. Qəmbərovun 1954-ci ildə Böyük Qafqazın cənub yamaclarının şərq hissəsinə aid olan materiallarına rast gəldik [32]. Sonraki dövrlərdə öyrənilən ərazidə yalnız 80-cı illərin sonunda E.H.Sultanov tərəfindən Altıağac kəndi ətrafında yayılan sərcəkimilərin akustik davranışı öyrənilmişdir. Mövcüd olan ədəbiyyat materialları göstərdi ki, tədqiqatlar yalnız Altıağac kəndi ətrafı aparılmışdır və Milli Parkın digər hissələri üçün məlumat mövcud deyil. K.M.Qəmbərov tərəfindən aparılan təqdiqatlar nəticəsində 169 yuvalayan növ qeydə alınmışdır, onlardan da yalnız 26-si Altıağac kəndi ətrafında qeydə alınmışdır.

***Nəticə***.Ətraf mühitin mühafizəsi nəzərə alınmaqla Altıağac Milli Parkın ərazisində müxtəlif istiqamətli marşrutlar fəaliyyət göstərir. Təşkil edilən ekoturlar yerli faunanı, floranı müşahidə etmək və öyrənmək üçün əla fürsət yaradır. Turizm marşurtları boyunca məlumat lövhələri, istiqamətverici lövhələr və qadağanedici nişanlar mövcuddur. Belə ki, bu löhvələr turlar boyunca ətraf mühitə ola biləcək mənfi təsirlərin qarşısının alınmasında böyük əhəmiyyətə malik maarifləndirici vasitələrdir. Turistlərin rahat və təhlükəsiz yolla ekoturlardan yararlanması üçün gələcəkdə imkanların daha çox genişləndirilməsi istiqamətində işlər aparılır. Ekotur təşkil edilərsə, heç bir turistin əraziyə bələdçisiz buraxılması yol verilməzdir. Çünki qanunvericilikdə altı nəfər turistə bir nəfər bələdçinin təyin olunması və qrupu müşayiət etməsi təsbit edilib.

Həyata keçirilən proqramlar və maarifləndirici tədbirlərin nəticəsində son illərdə bölgədə ekoturizm daha çox populyarlıq qazandı, getdikcə daha çox ziyarətçi parkın gözəlliyini yaşamağa, eyni zamanda minimum ekoloji təsir etməyə çalışır. Belə ki, son 5 il ərzində əraziyə gələn turistlərin sayında 4 dəfə artım müşahidə edilmişdir. [2] Bununla belə, yadda saxlamaq lazımdır ki, təbiətin mühafizəsinə müsbət təsiri ilə yanaşı (tursitlərin olan yerlərdə, aşkarlıq şəraitində brakonyerlər və digər mühafizə qaydalarını pozanlar özlərini sərbəst hiss etmirlər) ekoturizmdə təbiətə mənfi təsirləri minimuma endirmək üçün müəyyən qaydalara riayət etmək vacibdir. Turistlər parkın qaydalarına riayət etməli, zibillə ətraf mühiti çirkləndirməməli, heç bir bitki və heyvana zərər vurmamalıdırlar.

Ekoturizmin davamlı olması üçün aşağıdakı təklifləri həyata keçirmək faydalıdır:

1. Ekoturistlər üçün bələdçi kitabçaların paylanması
2. MP-ka gələn turist özünün və ətrafda rast gəlinə bilən tullantıların toplanması üçün xüsusi ekoçantaların verilməsi və turist MP-kı tərk edəndə bu çantanı xüsusi zibil üçün nəzərdə tutulmuş konteynerə qoysun.
3. Ətraf mühitin qorunmasına aid qaydaların təbliğatı məqsədi ilə əlavə maarifləndirici turların mütəmadi olaraq təşkili. [7]

Mövcud milli parklar və qoruqlar biomüxtəlifliyin qorunması üçün əsas alətdir, lakin təəssüf ki, onlar ölkədəki yaşayış mühitlərin və növlərin tam spektrini əhatə etmir. Brakonyerlik, mal-qaranın həddən artıq otarılması, ərazinin çirkləndirilməsi kimi ekoloji təhlükələrin həllində və ekoturizmin inkişaf etdirilməsi üçün yerli icmalarla birlikdə işləmək vacibdir. Yuxarıda göstərilən ekoloji təhlükələrlə bağlı yerli sakinlər arasında ekoloji təhsilin önəmi aşılanmalı, ətraf mühit mühafizəsinə, təbii ehtiyatların düzgün istifadəsinə təşviq etmək lazımdır. [3]

Ekoturizmin daha yaxşı anlaşılması üçün ekoturistin TIES (The International Ecotourism Society) tərəfindən formalaşdırılmış 10 qaydası müəyyən edilmişdir:

1. Yer kürəsinin həssas olduğunu unutmamaq;
2. Özündən sonra izlər qoyub, yalnız şəkillər aparmaq;
3. Düşdüyün mühiti öyrənmək: xalqların mədəniyyətini, coğrafiyanı;
4. Yerli əhaliyə hörmət etmək;
5. Ətraf mühit üçün təhlükə yaradan istehsalçıların məhsullarını almamaq;
6. Yalnız keçilmiş cığırlarla hərəkət etmək;

7. Ətraf mühitin mühafizəsi üzrə proqramlara qoşulmaq;
8. Mümkün olan hər yerdə ətraf mühitin mühafizəsi metodlarından istifadə etmək;
9. Ətraf mühitin qorunmasına köməklik göstərən təşkilatlarla əlaqələr saxlamaq;
10. Ekoturizm prinsiplərini dəstəkləyən şirkətlərin köməyilə səyahət etmək. [4]

Ekoturizm turizmin davamlı inkişafı forması kimi düzgün həyata keçirildiyi təqdirdə Azərbaycanın milli parkları təbiətin mühafizəsi və əhalinin rifahının yaxşılaşdırılması məqsədlərinin hər birinə çatmaq üçün imkan yaradır.

**Ədəbiyyat siyahısı**

1. Azərbaycan Respublikası Ekologiya və Təbiət Sərvətləri Nazirliyi, Milli Parklar, Bakı 2023, [www. Eco.gov.az ]
2. Azərbaycan Respublikası Dövlət Turizm Agentliyi, Illik statistik göstəricilər, Bakı 2023
3. Ecotourism in National Parks, Ecotourism policy, 2023
4. Ə.T.Əsgərov, B.Ə.Bilalov, Ç.G.Gülalıyev, Ekoloji Turizm, Bakı 2011, səh 276
5. Məsim Abadov, Azərbaycan Turizmi və Onun Inkişaf Problemləri, Bakı 2014, 248 səh.
6. Turizm və rekreasiya XXI əsrdə: problemlər və perspektivlər, Bakı 2019, 303 səh.

# YERİN FORMASI VƏ COĞRAFİ KOORDİNATLAR. PROYEKSİYA VƏ DATUM

**ZAHID İDRISZADƏ**
Bakı Mühəndislik Universiteti
*zahid.idriszade@gmail.com*
XIRDALAN, AZƏRBAYCAN

**XÜLASƏ**

Yerin forması haqda ilk təsəvvürlər onu müstəvi şəklində qəbul edir. Homer (e.ə. VIII əsr) Yerin hamar, Herodot (e.ə. V əsr) isə oval formada olması fikrini söyləmişlər. Yerin kürə formasında olması haqqında ən qədim fikir Pifaqora məxsusdur. Aristotel Ay tutulmaları əsasında Yerin kürə formasında olması haqqında qəti fikir söyləmişdir. Eratosfen isə Günəş şüalarının düşmə bucağına əsasən Yerin kürə formasında olmasını qeyd etməklə yanaşı, ilk dəfə onun ölçülərini hesablamışdır.

Əl-Biruni (973-1050) Yer ölçülərini təyin etmiş, onun Günəş ətrafmda hərəkət etdiyini söyləmişdir. Bu sahədə N.Tusinin də böyük xidmətləri olmuşdur.

İ.Nyuton Yerin tam kürə deyil, qütblərdən basıq olduğunu, yəni ellipsoid formasında olması fikrini söyləmişdir. Son dövrlərdə kosmik tədqiqatlar nəticəsində məlum olmuşdur ki, Yerin Şimal qütb sahəsi Cənub qütb sahəsinə nisbətən bir qədər qabarıqdır. Ürəyə oxşadığını nəzərə alıb onu kardioid adlandırmaq mümkündür. Lakin Yer heç bir həndəsi fiquru təkrarlamır və onun özünəməxsus forması var. Buna görə də onu Geoid adlandırırlar.

Yerin forma və ölçüləri haqqında dəqiq məlumat bir çox elmi və praktiki məsələlərin həllində lazımdır. Məsələn: Geodeziyada və Kartoqrafiyada yer səthinin xəritəsinin tərtibində, Yerin süni peyklərinin və kosmik raketlərin buraxılmasında, dənizçilikdə, radioəlaqə məsələlərində, eləcə də astranomiya, geofizika, geologiya və s. elm sahələrində Yerin forması və ölçüləri haqqında məlumatların olması vacibdir. Ümumi sahəsi 510 mln. km² olan yer səthinin 71%-ni dünya okeanı, 29%-ni isə qurunun əmələ gətirdiyi kələ-kötür fiziki səth təşkil edir. Yerin fiziki səthi həndəsi baxımdan mürəkkəb olduğundan, o, bilavasitə geodezik ölçmələrin hesablanması üçün istifadə edilə bilmir.

**AÇAR SÖZLƏR: Geoid, Yer ellipsoidi, Normal, Datum, Proyeksiya**

## GIRIŞ

Dünya okeanının sakit halda (qabarma-çəkilmə, cərəyanlar və s. hərəkətlər olmadan) və xəyalən materiklərin altına davam etmiş səthinə əsas səviyyə səthi yaxud yerin səviyyə səthi deyilir. Yerin səviyyə səthinin əmələ gətirdiyi fiqura geoid (yunan sözü olub yerəoxşar deməkdir) deyilir. Geoid 1873-cü ildə alman fiziki İ. B. Listinq (1808-1882) tərəfindən təklif edilmişdir. Beləliklə, geoidin səthi Yerin səviyyə səthi, geoidin özü isə təxmini olaraq Yerin fiquru kimi qəbul edilir (şəkil 1) (Bayramov 2006).



Şəkil 1: Geoid modeli

Geoidin səthi çox mürəkkəb formaya malik olub, heç bir riyazi düsturla ifadə edilə bilmir. Buna görə də geodezik və kartoqrafik hesablamalarda geoiddən istifadə etmək mümkün olmur. Həmin məqsədlə geoidi ona yaxın olan digər fiqurla əvəz etmək lazım gəlir (şəkil 2) (Blewit, 1997).




Şəkil 2: Yerin səviyyə və fiziki səthləri

Tədqiqatlar göstərir ki, geoidə ən yaxın həndəsi fiqur fırlanma ellipsoididir. Ellipsin öz kiçik $PP_1$ oxu ətrafında fırlanmasından əmələ gələn fiqura fırlanma ellipsoidi və ya sferoid deyilir (Mehdiyev, İsmayılov, 2011).






$$f = \frac{a-b}{a}$$

$$e^2 = \frac{a^2-b^2}{a^2} = 2f - f$$




Şəkil 3: Yer ellipsoidi və onun elementləri

**TƏDQIQAT METODU**

Yer ellipsoidinin elementləri aşağıdakı hərflərlə işarə edilir:
a – böyük (ekvatorial) yarımox
b - kiçik (qütb) yarımox
α = a-b/a- yer ellipsoidinin basıqlığı
a=6378245m (6378,245 km)
b=6356863m (6356,863 km)
a-b=21382m
α=1/298,3
ekvatorun uzunluğu-40075704m (40075,704 km)
meridianın uzunluğu-40008548m (40008,548 km)

Yer səthi nöqtələrinin ellipsoid üzərində vəziyyətini təyin etmək üçün coğrafi koordinatlar sistemindən istifadə olunur. Coğrafi koordinatlar sferik koordinatlardır. Coğrafi koordinatlar en və uzunluq dairələrindən ibarətdir.

Yer ellipsoidi öz kiçik oxu $PP_1$ ətrafında fırlanır (şəkil 3). Həmin oxun ucları qütb adlanır. P-şimal, $P_1$ isə cənub qütbüdür. Ellips qütb oxu ətrafında fırlanarkən, onun hər bir nöqtəsi bir çevrə cızır ki, buna da paralel ($MM_1$) deyilir. Ən böyük paralelə də ekvator deyilir. Demək, paralellər və ekvator ellipsoidin fırlanma oxuna perpendikulyar olan müstəvilərlə kəsişmə xətləridir. Ekvator müstəvisi yer ellipsoidinin mərkəzindən keçir. $PP_1$ fırlanma oxundan keçən hər hansı bir müstəvi ellipsoidlə kəsişdikdə ellips əmələ gətirir ki, bu da meridian adlanır (Sjöberg, 2004).

Uzun zaman hər bir ölkə özü üçün başlanğıc meridian (İngiltərədə Qrinviç, Rusiyada-Pulkovo, Fransada-Paris meridianları və s.) qəbul etmişdi. Hazırda əksər ölkələr 1884-cü ildə Vaşinqtonda çağırılmış Beynəlxalq Coğrafiya konqresinin təklif etdiyi Qrinviç meridianını başlanğıc meridian qəbul etmişdir.

M′ nöqtəsində ellipsoidə toxunan NN′ xəttinə olan perpendikulyara həmin nöqtədə ellipsoid səthinə normal (M′O′) deyilir. Normal ilə ekvator müstəvisi arasında qalan bucağa nöqtənin coğrafi en dairəsi deyilir və φ ilə işarə edilir.

Coğrafi en dairəsi ekvatordan şimala və cənuba 0°-dən 90° -yə qədər dəyişir: şimala müsbət, cənuba isə mənfi işarə qəbul edir.

Meridianlardan biri başlanğıc, yaxud sıfır meridianı qəbul olunur. Başlanğıc meridian müstəvisi ilə verilmiş nöqtədən keçən meridian müstəvisi arasında qalan ikiüzlü bucağa həmin nöqtənin coğrafi uzunluq dairəsi deyilir və λ ilə işarə olunur. Hal-hazırda başlanğıc meridian Qrinviçdən keçən meridian hesab olunur. Uzunluq dairələri başlanğıc meridiandan hər iki tərəfə 0°-dən 180°-dək hesablanır, həm də şərqə müsbət, qərbə isə mənfi işarə qəbul edir (Qocamanov, 2012).

Coğrafi koordinatlar nöqtənin vəziyyətini yer səthində deyil, ellipsoid səthində təyin edir. Yer səthində nöqtənin vəziyyətini tamamilə bilmək üçün üçüncü bir koordinatı – nöqtənin okean səthindən olan yüksəkliyini də bilmək lazımdır.

Yer kürəsi öz oxu ətrafında fırlanaraq 24 saat ərzində bir dəfə tam dövr edir. Bu zaman 0°-dən 360°-yə dönür. Bunu bilərək yer səthinin hər hansı bir nöqtəsi üçün vaxtı təyin etmək olar. Bunun üçün yerin səthini saat qurşaqları üzrə bölüb nəticədə hər biri (360°:24=15°) 15°-dən ibarət 24 saat qurşağı almaq olar. Beynəlxalq sazişə əsasən London şəhərindəki Qrinviç rəsədxanasından keçən meridianı saatın hesablanması üçün başlanğıc meridian kimi qəbul etmək qərara alınmışdır.

Müxtəlif hallarda kosmik (fəza), peyk geodeziyasında və astronomiyada düzbucaqlı (müstəvi, fəza) və qütb (sferiki və ellipsoid) koordinat sistemlərindən istifadə olunur. Koordinat başlanğıcının haradan götürülməsindən asılı olaraq bir neçə koordinat sistemi var. Geosentrik koordinat başlanğıcı Yer kütləsinin ortasından, Geodeziya referens isə ellipsoidin mərkəzindən götürülür. Yerin səthində topomərkəzdən hesablanan koordinatların oriyentasiyası ya ulduz inersiyasında və ya geodeziya sistemində verilir. Peyklə ölçmə aparanda əsas iki koordinat sistemindən istifadə olunur. Onlardan biri Yerlə sıx əlaqədardır. İkincisi isə əhatə (fəza və ya ulduz) məkandır. Peyk texnologiyasının köməyi ilə obyektin yer koordinat sistemində vəziyyətini təyin etmək üçün biz peykin vəziyyətini yer koordinat sistemində bilməliyik.

Coğrafi İnformasiya Sistemlərində hər hansı bir layihə çərçivəsində işə başlayarkən, mühüm addımlardan biri də kartoqrafik proyeksiyanın seçilməsidir. Xəritə tərtib etdikdə Yerin sferik (daha düzgünü sferoidik) səthini müstəvi üzərində təsvir etmək lazım gəlir. Yerin sferik səthinin müstəvi üzərində təsvir edilmə üsuluna kartoqrafik proyeksiya deyilir. Başqa sözlə desək, kartoqrafik proyeksiya yer kürəsinin üçölçülü səthini iki ölçülü kağız səth üzərinə köçürməyə imkan verir. Coğrafi İnformasiya Sistemlərində istifadə olunan bütün laylar eyni kartoqrafik proyeksiyada və koordinat sistemində olmalıdır. Əks təqdirdə bəzi təhlil məsələləri zamanı maneələrlə üzləşmək olar. Xəritə tərtibi zamanı lazımi proyeksiyanın seçilməsi məsələsi də əsas amillərdən biridir (Sjöberg, 2004).

**NƏTICƏ**

Proyeksiyanı seçərkən aşağıdakı şərtlər aşkar edilməlidir:

1. Tərtib edilən xəritənin ümumi xüsusiyyəti, məqsəd və vəzifəsi. Belə ki, xəritənin kimlər üçün tərtib edilməsi (ibtidai, orta, ali məktəb, yaxud elmi-məlumat işləri üçün), divar, stolüstü, dəqiq kartometrik işlərin aparılması üçün və s.
2. Xəritənin miqyası.
3. Proyeksiyaya xüsusi tələbat qoyulur. Məsələn, əvvəlcədən şərt qoyulur ki, meridianlar, yaxud paralellər və yaxud da bunların hər ikisi düz xətt şəklində təsvir olunsun, paralellərin əyriliyi az olsun; qütbün necə təsvir olunması (nöqtə, qütb xətti ilə, xəritənin çərçivəsi daxilində və yaxud xaricində təsvir olunsun), Yerin sferikliyini yaxşı verilməsi və s.
4. Xəritənin məqsədindən, vəzifə və məzmunundan asılı olaraq təsvir olunan ərazi daxilində təhriflərin xüsusiyyəti və ekstremal (ən kiçik və ən böyük) qiymətləri. Məsələn: əgər xəritədə hər hansı elementin ərazi üzrə yerləşməsi göstərilməlidirsə o, hər hansı bir ekvivalent, yaxud ona yaxın proyeksiyada, əgər xəritədə hər hansı dinamiki proseslər (məsələn, axınlar, küləklər və s.) təsvir edilməlidirsə, onda həmin xəritə üçün bərabərbucaqlı proyeksiyanın seçilməsi daha məqsədəuyğundur.
5. Təsvir olunan ərazinin coğrafi yerləşməsi, ölçüsü və konfiqurasiyası. Əgər təsvir olunan ərazinin sahəsi kiçik olarsa, onun böyük miqyasda bütün proyeksiyalarda təsviri, demək olar ki, eyni olacaqdır, çünki belə halda proyeksiya təcrübi olaraq çoxüzlü proyeksiyaya çevrilir.

Dəniz və uçuş xəritələri Merkator proyeksiyasında tərtib edilir. Bundan başqa aeronaviqasiya xəritələri üçün bərabərbucaqlı çəp silindrik, stereoqrafik üfqi və həmçinin beynəlxalq proyeksiya işlədilir.

Geofizika (seysmik, qravimetriya, yer maqnitizmi), meteoroloji və hidroloji xəritələr üçün bərabəraralıqlı, bərabərbucaqlı, yaxud ixtiyari proyeksiyalar tətbiq edilir.

Proyeksiya ilə bağlı daha mühüm bir aspekt Datum adlanır. Datum dedikdə Yerin üzölçülü formasını dəqiq təsvir etmək üçün istifadə olunan nəzarət nöqtələri və baza parametrləri dəsti başa düşülür.

Datum Yer səthindəki mövqeyin müəyyən olunması üçün baza istinadını verir. Uzunluq və en dairəsi üzrə orientir və başlanğıc datum ilə əldə olunur. Ən geniş yayılmış datumlardan 1984-cü il Dünya geodeziya sistemini (World Geodetic System of 1984, WGS 84) göstərmək olar. Bu referens – ellipsoid bütün dünyada peyk məlumatları vasitəsilə mövqelərin müəyyən edilməsində istifadə olunur. Misal kimi, Qlobal Mövqemüəyyənetmə Sistemlərini (GPS) göstərmək olar.

**ƏDƏBIYYAT SIYAHISI**

1. Bayramov R.V. "Rəqəmli xəritələtin tərtibi və CİS", magistr hazırlığı üçün proqramlar toplusu. Bakı, "Ulu", 2006, s.20-25
16. Mehdiyev A.Ş., İsmayılov A.İ., "Coğrafi İnformasiya Sistemləri", Bakı: Müəllim nəşriyyatı, 2011, 232 s.
17. Blewit G. ″Basics of the GPS Technique: Observation Equations″.Department of Geomatics, University of Newcastle, United Kingdom, 1997
18. Sjöberg L.E. A spherical harmonic representation of the ellipsoidal correction to themodified Stokes formula. Journal of Geodesy, 78(3), 180–186. 865VZ Times Cited:3Cited References Count:12., 2004
19. Qocamanov M.H. "Geodeziya ölçmələrinin hesablanması və tarazlaşdırılması". Ali məktəblər üçün dərslik, 2012

# YERİN MÜŞAHİDƏ MƏLUMATLARINDAN İSTİFADƏ EDƏRƏK LANDŞAFT TƏHLİLİ

**TÜRKAN ABBASOVA**
Bakı Mühəndislik Universiteti
Memarlıq və inşaat fakültəsi/Sənaye mühəndisliyi
*tabbasova2@std.beu.edu.az*
XIRDALAN, AZƏRBAYCAN

**XÜLASƏ**

Təbii və antropogen dəyişikliklərin təsiri altında dayanıqlılığa nail olmaq dövrün əsas problemlərindəndir.Bu dayanıqlılığa nail olmaq üçün insanlarla ətraf mühit arasında uyğun tarazlığı qorumaq lazımdır.Torpaqdan istifadənin və landşaft nümunələrinin təkamül tendensiyasının qiymətləndirilməsi və simulyasiyası regional strategiyanın həyata keçirilməsi kontekstində mühüm əhəmiyyət kəsb edir Bu prosesin əsasını landşaft anlayışı təşkil edir.Belə ki, landşaftın müxtəlif aspektlərinin və onların komponentlərinin qiymətləndirilməsi siyasətinin hazırlanması, planlaşdırılması və idarə olunması üçün çox vacibdir. Landşaft keyfiyyətinin qiymətləndirilməsi araşdırma aparan bütün tədqiqatçıların maraq dairəsində olmuşdur.Tədqiqat işində bir sıra kəmiyyət məkan göstəricilərindən istifadə etməklə təhlillər aparılmışdır. Ümumi metodologiya torpaqdan istifadə və örtük dəyişikliklərinin GİS və yerin müşahidə məlumatlarından istifadə etməklə tədqiqinə əsaslanır.

**ABSTRACT**

Achieving sustainability under the influence of natural and anthropogenic changes is one of the main problems of the era. In order to achieve this sustainability, it is necessary to maintain a suitable balance between people and the environment. The assessment and simulation of the evolutionary trend of land use and landscape patterns is of great importance in the context of the implementation of regional strategy. The basis of this process is the landscape Thus, the assessment of various aspects of the landscape and their components is very important for policy development, planning and management. The assessment of landscape quality has been of interest to all the researchers conducting the research. In the research work, analyzes were carried out using a number of quantitative spatial indicators. The overall methodology is based on the study of land use and land cover changes using GIS and ground observation data.

**AÇAR SÖZLƏR: Landşaft keyfiyyəti, göstəricilər, geoməkan məlumatları**
**KEY WORDS: Landscape quality, indicators, geospatial data**

## GIRIŞ

"Landşaft" sözü 13-cü əsrə aiddir və alman dillərindən götürülmüşdür. O, ilk dəfə Hollandiyada torpaq, bölgə və ya ətraf mühitə istinad etmək üçün landşaft və lantscap kimi istifadə edilmişdir. Sonralar isə landşaftın mənası "mənzərə" mənasında dəyişdi. (Antrop, M. *A brief history of landscape research. In The Routledge Companion to Landscape Studies;* Howard, P., Thompson, I., Waterton, E., Eds.; Routledge: London, UK, 2013; pp. 12–22)

In 1828, Tsarist Russia created the so-called "Armenian province" on the territory of the Nakhchivan and Iravan khanates. Armenians also acted very purposefully in this matter. On the other hand, in accordance with the imperial policy, registration works i.e. “cameral descriptions” were carried out in the region. Information about the 19th century toponymy, demographic situation, social and economic history of Azerbaijan was given in these cameral descriptions. Such cameral descriptions were regularly conducted approximately every 10-15 years. One of them is the "1842 cameral description of the city of Lankaran" stored in the State Historical Archive of the Republic of Azerbaijan. According to Article 15 of the Turkmenchay Treaty, tsarism began to move and settle Armenians from Iran to Azerbaijan. According to Russian sources, in 1829, 40,000 Armenians were moved from Gajar Iran. Some Armenian historians consider themselves indigenous people of the Caucasus and do not want to accept these historical facts. Considering this point, the 1842 cameral descriptions of Lankaran city contain very important information. The historical facts mentioned here regarding the resettlement of Armenians from Gajar Iran are of great importance. It is clear from the information in the cameral description held in the city of Lankaran in 1842 that a group of Armenian communities was settled in the city of Lankaran in 1829. In front of their names, their nationality was mentioned as Armenian, and their religion as Gregorian. The number of this Armenian community, consisting of 21 families, was only 88 people. 43 of them were men and 45 were women. The notebook also provides information about a church built for these Armenians. The priest of the church was Ter Gazar Ter Stepanov who was 60 years old. He settled in Lankaran with his family.

**Keywords: Tsarist Russia, the 1842 cameral descriptions of Lankaran city, resettled Armenians.**

**Giriş**

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra vətən tarixinin təhriflərə yol vermədən öyrənilməsinə maraq xeyli artmış, humanitar elm sahələrinin qarşısında böyük perspektivlər açılmışdır. Sovet dövründən fərqli olaraq daha obyektiv elmi tədqiqatlar aparmaq üçün əlverişli zəmin yaranmışdır. Bir vaxtlar sovet ideolojiyası baxımından “ehtiyatlı” mövzu sayılan ermənilərin (XIX əsr boyu) Azərbaycan torpaqlarına köçürülməsi problemləri elmi araşdırmaların maraq dairəsinə daxil olmuş, ciddi və obyektiv tədqiqatlar aparılmışdır .

1828-ci il fevralın 10-da Cənubi Azərbaycanın Türkmənçay kəndində Qacarlar İranının vəliəhdi Abbas Mirzə ilə rus generalı İ.F.Paskeviç arasında 16 maddəlik sülh müqaviləsi imzalandı. Bununla da Azərbaycanın rəsmən iki yerə bölünmə prosesi başa çatdı. Müqavilənin III maddəsinə əsasən Naxçıvan və İrəvan xanlıqları Rusiyanın tərkibinə qatıldı. Xəzər dənizində hərbi donanma saxlamaq hüququ yalnız Rusiyaya məxsus idi (VIII maddə). Qacarlar İranı 20 milyon gümüş manat təzminat verməyə razı oldu (VI maddə). Rus tacirləri üçün İranda əlverişli ticarət .ərtləri müəyyən edildi. Türkmənçay müqviləsinin XV maddəsinə əsasən isə əhalinin İrandan Cənubi Qafqaza hərəkətinə icazə verildi (Mahmudov və Şükürov, 2009: 493-503; Heydərov, Bağırov və Şükürov, 2010: 55-66).

Əsas müəllifləri A.S.Qriboyedov və İ.F.Paskeviç olan bu XV maddəyə əsasən Şimali Azərbaycan torpaqları müstəmləkəçilərin köçürülmə obyektinə çevrildi. Rusiya tərəfindən ermənilərin Şimali Azərbaycana köçürülməsinə əvvəlki tarixi dövrlərdə də cəhd edilmişdi. 1724-cü ilin noyabrında I Pyotrun verdiyi fərmana görə, Azərbaycanın işğal olunmuş Xəzəryanı ərazilərinə ermənilərin köçürülməsi nəzərdə tutulurdu verildi (Mahmudov və Şükürov, 2009: 141-147; Heydərov, Bağırov və Şükürov, 2010: 51-54). O zaman Rusiyanın kifayət qədər hərbi-siyasi gücü olmadığı üçün bu məqsədini həyata keçirə bilməmişdi. Bu planın gerçəkləşdirilməsi üçün XIX əsrin 20-30-cu illərində Rusiya üçün əlverişli hərbi-siyasi şərait yetişdi. İrəvan xanlığının işğalından sonra köçürmə planını hüquqi cəhətdən təmin etmək üçün tədbirlər görüldü. Köçürmə layihəsi Erməni katalikosu Nerses tərəfindən hazırlansa da, onun həyata keçirilməsinin əsas təşəbbüsçülərindən biri Rusiyanın İrandakı səfiri A.S. Qriboyedov idi. Türkmənçay müqaviləsinin bağlanmasından bir ay sonra, 1828-ci ilin martında 700 erməni ailəsi Qarabağa-Bərdəyə gətirildi. Bu məqsədlə yaradılmış “köçürmə komissiyası” ermənilərin böyük əksəriyyətini Şimali Azərbaycanın qədim tarixi bölgələri olan Qarabağ, İrəvan və Yelizavetpolda (Gəncə) yerləşdirdi. Həm də köçürülən ermənilərə xüsusi

imtiyazlar verilirdi. Onlar 6 il müddətinə bütün vergi və mükəlləfiyətlərdən azad edilir və İrandan alınan təzminat hesabına hər bir ermәniyə adam başı 25 rubl məvacib ödənilirdi (Грибоедов, 1989: 338; Qlinka, 1995: 42-46, 92). 1828-1830-cu illərdə Azərbaycana İrandan 40 min, Osmanlı dövlətindən isə 85 minədək erməni köçürülmüşdü. Köçürülən ermənilər üçün 200 min desyatin xəzinə torpağı nəzərdə tutulmuşdu. Eyni zamanda müsəlman zadəganlarının 2 milyon manat dəyərində olan münbit torpaqları müsadirə edilərək köçürülən ermənilərə verilmişdi. 1911-ci ildə tədqiqatçı N.Şavrov yazırdı ki, Cənubi Qafqazda yaşayan 1 mln. 300 min nəfər ermәninin bir milyondan çoxu bura Rusiya tərəfindən köçürülmüşdü (Шавров, 1990: 59-64). Bu baxımdan Rusiyanın xüsusi imperiya məqsədlərini qeyd edə bilərik. Osmanlı Türkiyəsi və İranla müharibələr zamanı Rusiyaya Cənubi Qafqazda etibarlı etnik dayaq lazım idi. Məhz buna görə köçürülən ermənilərə xüsusi imtiyazlar verilir, onlar Cənubi Qafqazın bir sıra bölgələrində məskunlaşdırılırdı. Saonrakı tarixi dövlərdə bu məkirli siyasət davam etdirilmiş, Qərbi Azərbaycan torpaqlarında qondarma erməni dövləti yaradılmışdır. Bütün bunlara baxmayaraq ermənilər özlərini Qafqaza gəlmə xalq hesab etmir, bunun tam tərsi olaraq bu regionun yerli xalqı olduqlarını iddia edirlər. Hətta 1978-ci ildə Marağadan Qarabağa gəldiklərinin 150 illiyinə dair Ağdərədə ucaldılan abidəni də dağıdaraq, bu faktı bir daha inkar etmişdilər (Azərbaycan multikulturalizmi, 2017: 82). Digər tərəfdən ermənilərin qonşu dövlətlərdən Azərbaycan ərazisinə köçürülməsinin tariximizə bəlli olmayan, naməlum istiqamətləri də vardır. Bu nöqtəyi nəzərdən mövzu ilə bağlı yeni qaynaq kimi 1842-ci ilə aid olan Lənkəran şəhəri ilə bağlı kameral təsvirlərdə ermənilərin Qacarlar İranından köçürülməsi ilə əlaqədər əksini tapmış tarixi faktlar çox böyük əhəmiyyət daşımaqdadır.

Mövzu ilə bağlı ilk istinad edilən mənbə Çar Rusiyasının 1842-ci ildə qeydə aldığı "Lənkəran şəhərinin kameral təsviri" dəftəridir. Bundan başqa Türkmənçay müqviləsi imzalandıqdan sonra ermənilərin Qacarlar İranından Azərbaycana köçürülməsilə bağlı məlumatlar verən A.S. Qriboyedovun Çara yazdığı məktubu, S.N. Qlinka və N.N. Şavrovun əsərlərini də xüsusi olaraq qeyd etməliyik. Bu mənbələr araşdırılan mövzunun elmi mahiyyətinin açılması və tarixi mənzərəsinin tamamlanması baxımından əhəmiyyətli olmuşdur. Eyni zamanda tədqiqat mövzumuzla əlaqədar kifayət qədər kitab və məqalələrdən də istifadə olunmuşdur.

1842 Lənkəran şəhərinin kameral təsviri

Təkrarən də olsa vuğulamalıyıq ki, Rusiyanın həyata keçirtdiyi köçürmə siyasətinin əsas məqsədi işğal etdiyi Azərbaycan torpaqlarında özünə etnik dayaq yaratmaq idi. Buna görə də çarizmin tərkibində olan ölkələrin xristian əhalisi düşünülmüş şəkildə Azərbaycan torpaqlarında məskunlaşdırılmışdı. Köçürmə prosesi nəticəsində Şimali Azərbaycanda əhalinin etnik tərkibi kəskin dəyişikliyə məruz qaldı. Ermənilərin bizim torpaqlarımızda məskunlaşdırılması və onların torpaq iddiaları, şübhəsiz ki, yerli əhali ilə münasibətləri kəskinləşdirmişdi. Beləcə Rusiya 1828-ci ildə Naxçıvan və İrəvan xanlıqlarının ərazisində qondarma "Erməni vilayəti"ni yaradır. Ermənilər də bu məsələdə məqsədyönlü fəaliyyət göstərmişdilər (Dedeyev, 2009: 335-351). Digər tərəfdən isə, imperiya siyasətinə uyğun bir şəkildə bölgələrdə qeydiyyat işləri, yəni "kameral təsvirlər" aparılmışdı. Bu kameral təsvirlərdə Azərbaycanın XIX əsr toponimikası, demoqrafik vəziyyəti, ictimai və iqtisadi tarixi haqqında ciddi məlumat verilmişdi. Belə kameral təsvirlər mütəmadi olaraq təqribən hər 10-15 ildən bir aparılmışdır. Bunlardan biri də Azərbaycan Respublikası Dövlət Tarix Arxivində saxlanılan "Lənkəran şəhərinin 1842-ci il kameral təsviri"dir. Bu kameral təsvir dəftər kimi tərtib olunmuş, 133 vərəqdən ibarət 1a və 1b şəklində səhifələndirilmişdir. Dəftərin uzunluğu 36, 4, eni isə 23,5 santimetrdir (К/о. г. Ленкорани за 1842 г., 1842: 1a-133b). Burada qeyd olunan ailələr, ailə başçısı, atasının adı və ailə tərkibindəkilər; həyat yoldaşı və ya yoldaşları, oğulları, qızları, tabeliyində yaşayan qohumları varsa onların da adları və yaşları göstərilməklə yazılmışdır. Kameral təsvirlərin struktur forması olaraq göstərilən ailə sıralamasının yanında bir əvvəlki tarixdəki kameral təsvirdəki sıra nömrəsi də qeyd olunmaqla sakinin uçotu da dəqiqləşdirilmiş olurdu. Lənkəran şəhərinin 1842-ci ildən əvvəl qeydə alınan kameral təsvirlər 1836 və daha əvvəl isə II Rusiya-İran müharibəsi bitdikdən dərhal sonra 1829-cu ildə aparılmışdır. Hal hazırda Lənkəranın 1829 və 1836-cı illərdə keçirilmiş kameral təsvirləri Dövlət Tarix Arxivinin qeydiyyatında olmasa da (bu dəftər Tiflis və ya Peterburq arxivlərində olmalıdır), tədqiqatlar nəticəsində üzə çıxarılmışdır (Xansuvar və Varsaman, 2022: 46-53). 1842-ci il kameral təsvirlərinin bir xüsusiyyəti də burada qadınların da adlarının yazılmasıdır. Ümumiyyətlə XIX əsrdə bir sıra kameral təsvirlər keçirilmişdir. 1842-ci illə yanaşı 1849, 1863, 1873 və 1886-cı illərdə də Lənkəran qəzasının kameral təsvirləri aparılmışdır. Lakin 1842-ci ilin kameral

təsviri istisna olmaqla, diğər kameral təsvirlərdə ailədəki qadınların sayı göstərilsə də adları qeyd olunmamışdır. 1849-cu il kameral təsvirində ümumiyyətlə ailədəki qadınlar haqında heç bir məlumat verilməmişdir.

Qacarlar İranından Lənkəran şəhərinə köçürülmüş ermənilər

Lənkəran şəhərinin 1842-ci il kameral təsvirində aparılan qeydiyyat başlıqlar şəklində fəsillərə ayrılaq tərtib edilmişdir. Burada ardıcıllığa diqqət yetirdikdə görürük ki, bəylər (Xan ailəsindən olan Talışinskilər), seyidlər, mollalar (К/о. г. Ленкорани за 1842 г., 1842: 1a-7b), əkərlər (dövlət xəzinəsinə vergi verənlər) (К/о. г. Ленкорани за 1842 г., 1842: 8b-22a ), maaflar (vergidən azad olanlar) (К/о. г. Ленкорани за 1842 г., 1842: 22b-71b), xəzinə kəndliləri (К/о. г. Ленкорани за 1842 г., 1842: 71b-82b), bəy tabeliyində olanlar (К/о. г. Ленкорани за 1842 г., 1842: 82a-108a), mirzələr (müəllim və məmurlar) (К/о. г. Ленкорани за 1842 г., 1842: 115b-119a), subotniklər (ruhani xristian təriqəti) (К/о. г. Ленкорани за 1842 г., 1842: 119b-121b), malakanlar (bidətçi və təriqətçi ruslar) (К/о. г. Ленкорани за 1842 г., 1842: 121b-122a), İrandan müvəqqəti köçürülənlər (15 noyabr 1846-cı ilə qədər qeyd olunmuşdur) (К/о. г. Ленкорани за 1842 г., 1842: 122b-126a) ilə yanaşı Türkmənçay müqviləsindən sonra Qacarlar İranından köçürülən ermənilər (К/о. г. Ленкорани за 1842 г., 1842: 108b-111b) də qeydə alınmışdır. Ümumiyyətlə bu dəftədə qeyd olunan ermənilər iki qrup şəklində yazılmışdır. Birinci qrupa "Lənkəran şəhərində əvvəllər yaşamış ermənilər (коренные жители şəklində yazılmışdır)" (К/о. г. Ленкорани за 1842 г., 1842: 111b-115a), ikinci qrupa isə "İrandan köçürülən ermənilər" aid edilmişdir. Hər iki qrupun sıra nömrələrindən məlum olur ki, 1836-cı il Lənkəran şəhərinin kameral təsvirində qeydə alınmış ailələrdir. 1842-ci il kameral təsvirində onların məşğuliyyəti və ya peşələri haqqında heç bir məlumat qeyd olunmasa da, 1836-cı il qeydiyyatında isə Lənkəran şəhərində yaşayan 76 nəfər (yəqin ki, kişilərdir) ermənin demək olar ki, hamısının ticarətlə məşğul olduğu bildirilmişdir (Xansuvar və Varsaman, 2022, 53). 1842-ci il dəftərində onlar üçün milliyyəti erməni, dini məzhəbi isə qriqoryan yazılmışdır. Buradakı birinci qrup erməni icması böyük ehtimalla buraya ticarət məqsədi ilən gəlib məskunlaşan və ya Türkmənçay müqaviləsindən əvvəl köçürülən ermənilərdir. Çox güman ki, bu ermənilər Rusiya imperiyasının başqa bölgələrindən gətirilərək Lənkəran şəhərində məskunlaşdırılmışdır. Çünki, xanlıq dövründə Lənkəran şəhərində ermənilərin toplu şəkildə yaşadıqlarına dair heç bir məlumat yoxdur. Həm də onların sayı daha azdır; 14 ailədə 36 kişi və 40 qadın qeydə alınmışdır. Belə güman oluna bilər ki, bu ermənilər 1813-cü ilin Gülüstan müqaviləsinin imzalanmasından sonra rus ordusuna yardım etmək məqsədi ilə Lənkəran xanlığına köçürülmüşdür.

İkinci qrup erməni ailələrinin isə birmənalı şəkildə İrandan köçürülənlər olduğu yazılmışdır. Bunlar N.N.Şavrovun da qeyd etdiyi kimi İrandan köçürülən 40 min erməni əhalisindən olanlardır. Buradan aydın olur ki, onlar 1829-cu ildə Lənkəran şəhərində məskunlaşdırılmışlar. 21 ailədən ibarət olan bu erməni icmasının sayı cəmi 88 nəfər olmuşdur. Onlardan 43 nəfəri kişi, 45 nəfəri qadın idi. Dəftərdə bu ermənilər üçün inşa edilmiş bir kilsə barədə də məlumat verilmişdir. Kilsənin keşişi 60 yaşlı Ter Qazar Ter Stepanov adlı din xadimi olmuşdur. O, Lənkəran şəhərində öz ailəsi ilə birlikdə məskunlaşdırılmışdır (К/о. г. Ленкорани за 1842 г., 1842: 114b). 1849-cu il Lənkəran qəzasının kamarel təsvirində də yenidən bu keşişdən bəhs edilmişdir. Bu dəfəki kameral təsvirdən bəlli olmuşdu ki, 65 yaşında olan həmin keşiş Erməni Qriqoryan kilsəsinin ruhani vəzifəsində çalışmış və onun 5 oğlu var idi (Xansuvar və Varsaman, 2022: 89). Yenə 1849-cu ilə məxsus kameral dəftərdən bəlli olur ki, 36 evdə 66 kişi erməni qeydə alınmışdır (Xansuvar və Varsaman, 2022: 131). 1849-cu il Lənkəran qəzasının kameral təsvirində qadınların nə adları, nə də sayları yazılmamışdır. Bütün bu məlumatlardan bəlli olur ki, Rusiya Azərbaycanın diğər bölgələrinə olduğu kimi, Lənkəran şəhərinə də ermənilər planlı bir şəkildə köçürmüşdür. Rusiya, bu hərəkəti ilə Qacarlar İranı ilə sərhəd olan Lənkəran qəzasında etnik dayaq yaradaraq bir daha özünün məqsəd yönümlü müstəmləkə siyasətini həyata keçirtdiyini sübut etmişdir.

**Nəticə**

Nəticə olaraq deyə bilərik ki, ermənilərin qonşu dövlətlərdən Azərbaycan torpaqlarına köçürülməsi ilə bağlı bilinənlərlə yanaşı, tariximizə bəlli olmayan, naməlum istiqamətləri də vardır. Bu nöqtəyi nəzərdən məsələ ilə əlaqədar bir yeni qaynaq kimi 1842-ci ilə aid olan Lənkəran şəhərinin kameral təsvirində kifayət qədər tarixi faktların olması, bu mənbənin tarixi dəyərini və əhəmiyyətini

artırır. Güman etmək olar ki, Azərbaycanın digər bölgələrinə aid kameral təsvirlərdə də ermənilərin başqa ölıkələrdən köçürülməsi ilə əlaqədar yeni məlumatlar olsun.

Yuxarıda qeyd etdiyimiz bütün bu tarixi proseslərə yekun olaraq vurğulaya bilərik ki, Rusiya tərəfindən ermənilərin Azərbaycan torpaqlarına köçürülməsi I Pyotrun dövründən başlayaraq, mərhələ-mərhələ həyata keçirilmiş və Sovet dövrünün son illərinə qədər davam etmişdir.Rusiya Cənubi Qafqazda ermənilərə öz forpostu kimi baxmış, bir çox hallarda ermənilər də bu ümidləri doğrutmuşdular. Eyni zamanda ermənilərin torpaqlarımıza köçürülməsi xalqımız üçün ağır nəticələr vermiş, gələcək faciələrimizin əsasını qoymuşdur.

**İstifadə edilən ədəbiyyat**

1. Azərbaycan multikulturalizmi. (2017). Ali məktəblər üçün dərslik. Kamal Abdulla və Etibar Nəcəfovun redaktəsilə. Bakı.

2. Dedeyev, B. (2009). 19. Yüzyıl Ermeni Milliyetçiliği'nin Yapılanmasında Rusya'nın Rolü. Hoşgörüden Yol Ayrımına Ermeniler, Erciyes Üniversitesi-Nevşehir Üniversitesi II. Uluslararası Sosyal Araştırmalar Sempozyumu [EUSAS-II](22-24 Mayıs 2008), 1, 335-351.

3. Qlinka S. N. (1995). Azərbaycan ermənilərinin Rusiya hüdudlarına köçürülməsinin təsviri. Tərcümə edən: Vasif Quliyev. Bakı.

4. Грибоедов, А.С. (1989). Горе от ума. Писма и записки. Баку.

5. Heydərov, T.K. Bağırov, T.R. və Şükürov, K.K. (2010). Qafqazda "erməni məsələsi". Rusiya arxiv sənədləri və nəşrləri üzrə (Üç cilddə). C. I, Bakı.

6. Камералъное описание г. Ленкорани за 1842 г. (1842). Государственный Исторический Архив Азербайджанской Республики. Fond № 29, siy.№ 1, sax. vah. № 17.

7. Mahmudov, Yaqub və Şükürov, Kərim. (2009). Azərbaycan beynəlxalq münasibətlər və diplomatiya tarixi (1639-1828)-Dövlətlərarası müqavilələr və digər xarici siyasət aktları. C. I, Bakı.

8. Шавров, Н.Н. (1990). Новая угроза Русскому делу Закавказе: Престоящая распродажа Мугани инородцам . Баку.

9. Xansuvar, Rəzzaq və Varsaman, Ağaəli.(2022). Lənkəran qəzasının kameral təsviri 1849-cu il. Bakı.

**Əlavələr**

ARDTA
Fond № 29 siy. № 1
Sax.vah. № 17

**Государственный Исторический Архив**
**Азербайджанской Республики**

**Камеральное описание г. Ленкорани за 1842 г.**

**Л –133**

ARDTA
Fond № 29 siy. № 1
Sax.vah. № 17



**Şəkil 2.** İrandan köçürülən ermənilərin siyahısının 1-ci səhifəsi.

# NADİR ŞAH ƏFŞAR İMPERİYASINDA ƏHALİNİN MİQRASİYASI

**ELNUR NƏCİYEV**
Bakı Mühəndislik Universiteti
Memarlıq və inşaat fakültəsi/Ümumi Fənlər Kafedrası
enaciyev@beu.edu.az
BAKI, AZƏRBAYCAN

**XÜLASƏ**

Əhali miqrasiyası hər dövrdə tarixi-demoqrafik prosesləri izləmək üçün mühüm əhəmiyyət kəsb etmişdir. Çünki miqrasiya hər hansı bir bölgənin etnik, demoqrafik, siyasi, sosial, iqtisadi vəziyyətini dəyişdirməyə səbəb ola bilər. Əfşarlar imperiyasına qədər mövcud olmuş Azərbaycan Səfəvi dövlətində əhali miqrasiyası tərəfimizdən daha öncə ətraflı şəkildə tədqiq edilmişdir. Nadir şah dövründə əhali yerdəyişmələrin sistemli şəkildə tədqiq olunmaması problemin öyrənilməsini zəruri etmişdir. Bu problemin öyrənilməsi Azərbaycanda niyə fərqli tayfaların ayrı-ayrı xanlıqlar yaratmasını, birləşib vahid dövlət yaratmaqdan çox öz hakimiyyətlərini qoruyub saxlamağa çalışmasını daha yaxşı başa düşməyə imkan verəcəkdir.

Azərbaycan xalqının tarixə bəxş etdiyi dahi şəxsiyyətlərdən biri də Nadir şah Əfşardır. Onun qurduğu imperiya qısa müddət yaşasa da tariximizin ən mühüm və həlledici dövrünü təşkil edir. O, 235 illik hakimiyyətdən sonra tənəzzül edən, ərazisi Çar Rusiyası və Osmanlı imperiyası arasında bölüşdürülmüş, əfqan tayfalarının tapdağı altında qalan Səfəvi imperiyasının xilası uğrunda mübarizəyə qalxmış, Vətən torpaqlarının yadelli işğalından azad etmiş, tarixin gedişini dəyişdirmiş dahi sərkərdədir. Onun qurduğu Əfşarlar imperiyasında müxtəlif səbəblərdən əhali yerdəyişmələri qeydə alınmışdır. Bu yerdəyişmələrin böyük əksəriyyəti əsasən dövlətdən narazı olan üsyankar qüvvələrin köçürülməsi formasında olmuşdur. Lakin Nadir şahın miqrasiya siyasətini yalnız cəzalandırma tədbiri kimi qiymətləndirmək doğru olmaz. Çünki onun əhali siyasətində dövlət sərhədlərini möhkəmləndirmək, ordunu gücləndirmək, həmçinin əhalini nəzarətdə saxlamaq üçün mərkəzi hakimiyyət ətrafında demoqrafik vəziyyəti öz xeyrinə formalaşdırmaq da xüsusi yer tuturdu. Buna baxmayaraq Nadirin istər xan, istərsə də şah olarkən həyata keçirdiyi əhali miqrasiya onun hakimiyyətini sadəcə 11 il qoruyub saxlamağa yetərli oldu.

**AÇAR SÖZLƏR: Azərbaycan, Xorasan, Nadir şah, məskunlaşdırma, qızılbaş, əfşar.**

**МИГРАЦИЯ НАСЕЛЕНИЯ В ИМПЕРИИ НАДИР-ШАХА АФШАРА**

**РЕЗЮМЕ**

Миграция населения играли важную роль для отслеживания историко-демографических процессов в каждую эпоху. Потому что миграции могут изменить этническую, демографическую, политическую, социальную, экономическую ситуацию любого региона. Миграции в Сефевидском государстве Азербайджана, существовавшем до Афшарской империи, ранее нами подробно изучались. В период правления Надир-шаха отсутствие систематического изучения перемещений населения сделало необходимым изучение проблемы. Изучение этой проблемы позволит нам лучше понять, почему разные племена создали отдельные ханства в Азербайджане и старались сохранить свою власть, а не объединиться и стать единым государством.

Надир Шах Афшар – один из гениев, которых азербайджанский народ подарил истории. Хотя его империя просуществовала недолго, это самый важный и решающий период нашей истории. Он гениальный полководец, боровшийся за спасение пришедшей в упадок после 235 лет правления империи Сефевидов, территория которой была разделена между Царской Россией и Османской империей, и находившейся под гнетом афганских племен, освободивший родину от иностранной оккупации и изменило ход истории. В основанной им империи Афшаров зафиксированы перемещения населения по разным причинам. Подавляющее большинство этих перемещений происходило в основном в форме перемещения повстанческих сил, недовольных государством. Однако было бы неверно оценивать миграционную политику Надир-шаха только как карательной мерой. Потому что в его демографической политике особое место занимало укрепление государственных границ, усиление армии, а также

формирование демографической ситуации вокруг центральной власти в свою пользу с целью держать население под контролем. Тем не менее миграций Надира, будь он ханом или шахом, хватило, чтобы сохранить свою власть всего на 11 лет.

**КЛЮЧЕВЫЕ СЛОВА: Азербайджан, Хорасан, Надир-шах, переселение, кызылбаш, Афшар.**

**POPULATION MIGRATION IN THE EMPIRE OF NADIR SHAH AFSHAR**

**SUMMARY**

Population migration played an important role in tracking historical and demographic processes in each era. Migration can change the ethnic, demographic, political, social, and economic situation of any region. We previously studied migration in the Safavid state of Azerbaijan, which existed before the Afshar Empire, in detail. During the reign of Nadir Shah, the lack of systematic study of population movements made it necessary to study the problem. Studying this problem will allow us to better understand why different tribes created separate khanates in Azerbaijan and tried to maintain their power rather than unite and become a single state.

Nadir Shah Afshar is one of the geniuses whom the Azerbaijani people gave to history. Although his empire did not last long, it was the most important and decisive period in our history. He is a brilliant commander who fought to save the Safavid Empire, which had fallen into decay after 235 years of rule, whose territory was divided between Tsarist Russia and the Ottoman Empire, and which was under the yoke of Afghan tribes, liberating his homeland from foreign occupation and changing the course of history. In the AfsharEmpire he founded, population movements were recorded for various reasons. The vast majority of these movements took place primarily in the form of movements by rebel forces dissatisfied with the state. However, it would be wrong to evaluate Nadir Shah's migration policy only as a punitive measure. Because of his demographic policy, a special place was occupied by strengthening state borders, strengthening the army, and shaping the demographic situation around the central government in its favor in order to keep the population under control. Nevertheless, Nadir's population migration, whether he was khan or shah, were enough to maintain his power for only 11 years.

**KEYWORDS: Azerbaijan, Khorasan, Nadir shah, relocation, qizilbash, Afshar.**

## GİRİŞ

Nadir şah Əfşar imperiyasında əhali miqrasiyalarının indiyə qədər tədqiq olunmaması və bu dövrün tariximizdə bütövlükdən parçalanma istiqamətində qırılma nöqtəsi olması baxımdan hər daim aktualdır. Bu problemi araşdırmaq üçün qarşıya başlıca məqsəd Nadir Əfşar imperiyasının əhalisi ilə bağlı müxtəlif mənbə və tədqiqatlardakı məlumatları toplamaq və müqayisəli təhlil metodundan istifadə edərək öyrənmək, əldə olunan nəticələri ümumiləşdirərək tarixi-demoqrafik istiqamətdə vahid problem kimi araşdırmaqdır. Bu məqsədə nail olmaq üçün qarşıya qoyulan vəzifələr aşağıdakılardır:

- Əfşarlar imperiyasının ərazisinin hüdudlarını və inzibati-ərazi bölgüsünü aydınlaşdırmaq, baş verən dəyişikliklərin səbəblərini öyrənmək;
- İmperiyanın ərazisində əhalinin yerləşməsinə təsir göstərən amilləri aydınlaşdırmaq;
- Əhalinin etno-demoqrafik vəziyyətində baş verən dəyişikliklərin səbəblərinə aydınlıq gətirmək;
- İmperiyanın taleyində yerdəyişməyə məruz qalan tayfalarının yeri və rolunu aydınlaşdırmaq;
- Miqrasiya və sürgünlərin əhalinin say dinamikasına təsirini öyrənmək.

Miqrasiya anlayışının mənası köçürəm, keçirəm deməkdir. Əhali miqrasiyası köç edən insanların bu və ya digər ərazinin sərhədlərini keçərək yaşayış yerlərini daimi, qısa və ya uzun müddətə dəyişməsidir. Əhali miqrasiyası xarici və daxili miqrasiyalara bölünür. Bu miqrasiyaların da müxtəlif formaları mövcuddur. Xarici miqrasiya əsasən bir dövlətdən başqasına, daxili miqrasiya isə kənddən kəndə, kənddən şəhərə, şəhərdən kəndə kimi baş verir. Əhali miqrasiyası müddətinə və həyata keçirilmə üsuluna görə də fərqlənir. Miqrasiya müddətinə görə daimi, müvəqqəti və ya mövsümi olur. Həyata keçirilmə üsuluna görə isə mütəşəkkil və ya qeyri-mütəşşəkil olur. Bu miqrasiyalar da öz növbəsində ayrı-ayrı bölgələrin əhalisinin say və etnik, dini və sosial tərkibinə müsbət, yaxud mənfi təsir göstərir. Bu proses dünyanın müxtəlif hissələrinin məskunlaşdırılmasında çox vaxt yeganə və

əsas faktor olmuş, ləngisə də dayanmamışdır. Ümumiyyətlə, köç səbəbləri və köç qərarının yaranma mexanizmini bilmədən miqrasiyanın mahiyyətini dərk etmək mümkün deyil. Bu səbəblər müxtəlif ola bilər: müharibələr, dini səbəblər, iqtisadi səbəblər, mədəni-siyasi səbəblər, ailəvi səbəblər və sair. Nadir istər xan olarkən, istərsə də özünü şah elan etdikdən sonra müxtəlif məqsədlərlə köçürmə siyasəti həyata keçirmişdir. Nadirin bu siyasətində ən başlıca məqsəd dövlətin sərhədlərinin möhkəmləndirilməsi, ordunun gücləndirilməsi, həm də mərkəzi hakimiyyətin qorunub saxlanılması üçün demoqrafik vəziyyətin münasib şəkildə dəyişdirilməsi idi.

Təbii ki Nadir şah Əfşarın istər xan, istərsə də şah olduğu dönəmdə həyata keçirdiyi əhali köçlərini tam şəkildə ələ almaq mümkün deyil. Sadəcə ümumi mənzərəni təsvir etmək üçün Nadirin həm sərkərdə, həm də dövlət xadimi kimi əhali miqrasiyasından necə istifadə etməsinə nəzər salmağa çalışacağıq. İlk öncə qeyd edək ki, Nadir şah Azərbaycanın türk Əfşarlar tayfasının Qırxlar boyundan olub, əslən Dərbənddən olan sadə bir kəndli oğludur. Onun mənsub olduğu döyüşkən elat Şah I Abbas tərəfindən Səfəvi imperiyasının Mərkəzi Asiya sərhədini qorumaq üçün Dərbənddən köçürülüb aparılmışdı. Bugün Dərbənddə Qırxlar mahalı, Qırxlar məscidi, Qırxlar qapısı, Qırxlar məzarlığı bu tayfanın yadigarıdır. Uşaqkən doğulduğu Xorasanla sərhəddə talançılıqla məşğul olan özbək dəstələri ilə toqquşmaların şahidi olmuş, anası ilə birlikdə həmin dəstələrdən biri tərəfindən əsir alınmış, əsirlikdən qaçmış, özü kimi igid dəliqanlıları başına toplayıb Səfəvi sərhədlərinin qorunmasında fəal iştirak etmiş, qəhrəmanlıqlarına, hərbi istedadına görə ad-san qazanmış, dövləti və ordunu idarə etməkdə acizlik çəkən Səfəvi hökmdarı tərəfindən hərbi xidmətə cəlb olunmuşdu. Beləliklə, sadə xalq içərisindən çıxmış, başqaları kimi nəsil-nəcabətinə, sülalə mənsubiyyətinə görə deyil, şəxsi igidliyinə və hərbi istedadına görə Səfəvi ordusunun istedadlı sərkərdələrindən biri səviyyəsinə yüksəlmişdi (Mahmudov, Mustafayev, 2019, 5). O, 1736-cı ildə də öz imperiyasını quraraq geniş bir ərazidə hökmranlığını bərqərar etmişdir. M.Süleymanov Məhəmmədhüseyn Cəmşidi adlı fars tədqiqatçının "İranda hərbi təfəkkürün tarixi və əsasları" əsərinə istinadən Nadir şah qoşunlarının tərkibində Xorasandan 65 min, İraqdan (Qum, İsfahan, Yəzd, Kirman və Bəxtiyari məntəqələri) 45 min, Fars və Xuzistandan 50 min, Azərbaycan, Gürcüstan və Kürdüstandan 60 min, Həmədan və Kirmanşahdan 25 min, Xarəzm və Türküstandan 60 min, Qəznə, Kabul, Kəşmir və hind əsəglərindən 70 min nəfərin olduğunu qeyd edir (Süleymanov, 2010, 571). Verilən rəqəmləri müqayisə etməkdən çox ordunu təşkil edilməsində istifadə edilən ərazilərə diqqət etmək yetərlidir ki, Nadir şah Əfşarın nə qədər güclü orduya və geniş əraziyə malik bir imperiya qurduğunu anlamaq mümkün olsun. Nadir şah Əfşar imperiyası ərazisini dörd inzibati vahidə - vilayətə bölmüşdü: Azərbaycan, İraq Əcəmi, Fars, Xorasan. Maraqlıdır ki, Azərbaycan bəylərbəyiliyi nəinki Səfəvilər dövründə Azərbaycan torpaqlarında mövcud olmuş Qarabağ (Gəncə), Çuxursəd (İrəvan), Təbriz, Şirvan bəylərbəyliklərini, hətta Kartli-Kaxetiya və Dağıstanın cənubunu da əhatə edirdi. Nadir şah imperiyasının əhatə etdiyi ərazini dəqiq rəqəmlə ifadə etmək çətin olsa da, bu hüdudların Səfəvilər ərazisindən (2,8 milyon kv.km (Bayramlı, 2015, 49) çox olmasını demək olar. Çünki həm Səfəvi torpaqlarında hakimiyyətini bərqərar edən Əfşarlar Türküstan, Hindistan istiqamətində daha geniş əraziləri əhatə etmiş, hətta Böyük Moğol dövlətini (ərazisi 4 milyon kv.km (Turchin, P., Adams, J.M., Hall, 2006, 219-229) özündən vassal asıllığına salmışdır. Nadir şah Əfşar imperiyasının əhali sayını Maykl Aksvörti 6 milyon nəfər olaraq qeyd edir (Axworthy, 2008, 160, 167).

Nadir şahın köçürmə siyasətində Xorasan öncəlik təşkil edirdi. O, doğulduğu Xorasanda Məşhəd şəhərini də özünə mərkəz qərar qalmışdı. O, Xorasanın ətrafını döyüşkən tayfalar hesabına köçürmə siyasəti ilə möhkəmləndirməyə çalışmışdır. Hələ 1728-ci ildə Nadir xan müxtəlif tayfalardan Xorasana əhali köçürmüşdü. Mirzə Mehdi xan Astrabadi "Tarixi-Cahanguşa-yi-Nadiri" əsərində bu barədə belə yazırdı: "... hicri 1141-ci ildə (1728) o, Abdali tayfalarının ilk dəstəsini Heratdan Xorasana – Cəm, Ləngər və Məşhədə göndərdi" (Astrabadi, h1368, 95). Nadir xan 1730-cu ildə Azərbaycanı tərk etməzdən əvvəl öz tayfasından olan 50 min, yaxud 60 min ailəyə (təxminən 300 min nəfərə) bu əyalətdən və Səfəvi İraqından, Farsdan Xorasana köçməyi əmr etdi. Onların arasında 12 min Əfşar ailəsi (Qırxlı qolundan 2 min ailə də daxil olmaqla təxminən 60 min nəfər) vardı, bu Qırxlılar Kubkan ətrafındakı rayonlara, qalan əfşarlar isə Kelata göndərildi (Süleymanov, 2010, 189; Lockhart, 1938, 51-52). Mirzə Məhəmməd Astrabadiyə görə, Qırxlı tayfası ilə yanaşı türkman, müqəddəm, kürd və bəxtiyari tayfalarından olanlar da köç etdi (Astrabadi, h1368, 134-135). Con Perri yazır ki, "öz növbəsində onlara Böyük Azərbaycanın müxtəlif hissələrindən 1735-ci ildə Ziyadoğlu Qacarları, 6 min Şəqqaqi kürdü (30 min nəfər), Tiflis şəhərindən 6 min gürcü (30 min nəfər) və 12 min (60 min

nəfər) türk ailəsi qoşuldu"(Perry, 1975, 209). Nadir xan 1732-ci il fevralın 27-də Heratda Səfəvi hakimiyyətini bərpa edəndən sonra Allahyar xanı və onun tərəfdarlarını Multana qovdu, 60000 abdalı Məşhəd, Nişapur və Damğana köçürdü. Həmin abdalları Xorasana köçürməklə o faktiki olaraq onların sayını burada cəmləşmiş əla döyüş qabiliyyətinə malik tayfaları ilə (əvvəldə də qeyd edildiyi kimi, o, 60 min əfşar ailəsini və digər tayfaları bura köçürmüşdü) birləşdirdi (Lockhart, 1938, 54). 1732-1736-cı illərdə 13 min bəxtiyari ailəsi və zəndlərdən olan lak tayfasından 300 ailə Kürdüstandan köçürülərək dövlətin şimal hüdudlarında - Nisa, Əbivərd və Dərgəzdə yerləşdirildi. Nadir xan Dərgəzdə kənd saldıraraq Mövludgah adını verdi və 1740-cı il Mərkəzi Asiya yürüşü zamanı Xivədən azad etdiyi təbəələrini orada məskunlaşdırdı (Perry, 1975, 209). Nadir şah hakimiyyətə gələndən sonra bölgədəki türk mühitinin möhkəmləndirilməsi üçün tədbirlər görüldü və göstəriş verildi ki, iki min əfşar Urmiyadan Əbivərdə köçürülsün (Mərvi, 1358a, 1190). Nadir şah haqqında mötəbər mənbələrdən biri olan Məhəmməd Kazım Mərvinin «Aləm Ara-ye Naderi» əsərində isə daha böyük rəqəmlər göstərilmişdir. Mənbədə təsbit olunmuş məlumata görə, Nadir şahın əmri ilə Urmiyadan 4500 əfşar ailəsi Xorasan vilayətinə köçürülərək Əbivərd və Dərgəzdə yerləşdirildi. Nadir şah, eyni zamanda bölgədəki kürdlərin və qacarların da sayını artırdı. Qarabağ və Gəncədə yaşayan qacarların bir hissəsini də Astrabada köçürdü və bununla da dövlətin şimal-şərqində türk tayfalarının təsir əhatəsi xeyli genişləndi (Əfşar, 2014, 61; Mərvi, h1358, 4-5).

Nadir şahın köçürmə siyasətində Azərbaycan da mühüm yer tuturdu. Təbii ki onun Azərbaycanda atdığı addımlar heç də Xorasandakı kimi müsbət istiqamətdə olmamışdır. Buna səbəb bəzi tayfaların üsyanları yatırıldıqdan sonra yenidən mərkəzi hökumətə. qarşı qiyam etmələri idi. Bu səbəbdən də Nadir Şirvanşahlar irsini bərpa etməyə cəhd edən Şamaxı camaatını ağır cəzalandırdı. 1734-cü il sentyabr ayının 15-də Nadir xanın Şamaxıya hücumu vaxtı şəhər tamamilə dağıdılaraq əhalisi "Yeni Şamaxı" adlanan Ağsuya köçürüldü (Mahmudov, Mustafazadə, 2019, 66). Bu tarixi rus tarixçisi S.R.Kişmişev 1735-ci il olaraq qeyd edir. Onun məlumatına görə "Nadir xan Türkiyə (Osmanlı – E.N.) ilə müharibə aparanda Şamaxı əhalisi Surxay xana tabe idi və o, Nadir xan ilə düşmən idi. Qışın gəlişi ilə əlaqədar Surxay xan Dağıstana gedir və Nadir xan onu cəzalandıra bilmədiyi üçün qisasını Şamaxıdan alır, şəhərdə daşı – daş üstə qoymayan xan şəhərin əhalisini Mərkəzi Asiyada və Persiyada (Əcəmdə – E.N.) qul kimi satır, özü isə 1735-ci ilin dekabrında Muğana çəkilir" (Кишмишов, 1889, 95). XVIII əsrin 30-cu illərində isə Azərbaycanda səfərdə olmuş, həkim Hoffmanın məsləhəti ilə Rusiyada işə cəlb olunan hərbi həkim İ.Y.Lerxdən sitat gətirən E.Qarayev yazırdı ki, "yeni şəhər hündür qala divarları ilə əhatə olunmuşdur, ancaq xanın evi daşdan tikilmişdir, qalan tikililər gildən inşa edilmişdir. Şəhərdə üç karvansaray, 6000 nəfər əhali, ipək istehsal edən müəssisə, şimal, qərb və cənubdan qapılar var idi" (Bayramova, 2009, 42). Nadirin özünü şah elan etdiyi Muğan qurultayında onun əleyhinə səs vermiş Gəncə Ziyadoğlu xanlarını, Qarabağın Otuzikilər, Kəbirli və Cavanşir tayfalarının başçılarını ailəliklə Xorasana sürgün etdi, Qarabağın xristian məliklərini Gəncə bəylərbəyinə tabe etdi (Tahirzadə, 2002, 19). Burada bir digər maraqlı məqam Nadirin Azərbaycanın mühüm strateji məntəqəsi olan Gəncə-Qarabağ ərazisində Qacarların siyasi iradəsini sındırmağa çalışması idi. Bu yolla o, əsrlər boyu qeyd edilən ərazidə möhkəmlənmiş qacarları daha etibarlı tayfalarla əvəz etməyə və onların mərkəzi hakimiyyət üçün təhdidini azaltmağa çalışırdı. Nadirin göstərişi ilə əfşar, müqəddəm və türkman soylarından olan 6 min nəfər köçürülüb Təbrizdə yerləşdirilmişdi (Süleymanov, 2010, 189).

Nadir şahın köçürmə siyasətini yalnız Xorasan və Azərbaycanı əhatə etmirdi. O, Hindistan və Mərkəzi Asiya yürüşləri zamanı xeyli sayda qızılbaş türkünü Qəndəhar, Qəznə və Kabulda yerləşdirmişdi. Əsas məqsəd nəzərdə tutulan yürüşlər zamanı ordunu təmin etmək üçün yolların təhlükəsizliyini təmin edib yerli dayaqlar formalaşdırmaq idi. Qızılbaş tayfaları da 1722-ci ildə baş verən əfqan işğalının bir daha təkrarlanmaması üçün Nadiir şahın Əfşarın qurduğu nizama qarşı qalxan üsyanları yatırmağa qabil idilər. Nadir şahın bu istiqamətdə növbəti köç taktikası 1738-1739-cu illərə təsadüf edir. Belə ki, 1737-nin martında Nadir şah Qəndəhara gəldi. Qəndəhardan 3 km aralıda böyük bir şəhər saldıran şah onun adını Nadirabad qoydu və qərargahını oraya köçürdü (Tahirzadə, 2002, 22). Kabulda Əfşarların yaşadığı məhəllədə Təxt-e Nadir inşa edildi. Bu ərazi həmin torpaqlarda Nadir şahın siyasi dayağı idi. Qeyd edək ki, Nadirin saldırdığı qalanın divarları hal-hazırda da mövcuddur, lakin bu kompleksin əksər hissəsi hazırda Əfqan Milli Polisinin binasıdır. Əfqanıstanda Əmir Həbibullahın hakimiyyəti dövründə (1901-1919) saray tarixçisi, etnik baxımdan Xəzər tayfasından olan Faiz Məhəmməd Katib "Sirac ət-təvarix" əsərinə istinadən Süleyman Fazel Nadir

şahın Hindistan yürüşü zamanı köçürdüyü qızılbaş tayfaları barədə belə məlumat verirdi: "Nadir şah Əfşar ölkəni əfqan təhlükəsindən qorumaq üçün şahsevən, cavanşir, bəxtiyarı, kürd, bayat, rika (?) tayfalarından 20 min döyüşçünü, Şiraz və Xvaf sakinlərini ailəsi ilə birlikdə Herat, Qəznə və Kabulda yerləşdirərək onlara burada qalmağı, ölkə hüdudlarını mühafizə etməyi əmr etdi" (Solaiman, 2017, 143). Nadir şah 1738-ci ildə Qəndəhar şəhərini ələ keçirdikdən sonra onun əhalisini Nadirabada köçürməyə məcbur etməklə şəhərin əvvəlki əhəmiyyətini itirməsinə səbəb olmuşdu (Lockhart, 1938, 120). Qəndəharın köhnə qala divarları yerlə-yeksan edilmişdi. Yerli sakinlər isə tikilməkdə olan Nadirabada köçürülürdülər. Şəhər əyalətin yeni paytaxtı qismində seçilmişdi. Gilzai qəbiləsinə daxil olan Xotakilər nəsli isə Xorasanda məskunlaşdırıldı. Əhalinin əsas hissəsinin köçü aprel ayının ortalarına qədər davam etdi. Gilzailərin yalnız bir nüfuzlu ailəsinə məskunlaşdığı yeri tərk etmək icazəsi verilmədi (Aksvörti, 2018, 251). Məntəqədə asayişin sabit qalması naminə Nadir tatar əyanlarının bir çoxunu Əbivərdə köçürdü, Polad bəyi isə Mərv hakimi elan etdi. Sonra da Mərv cavanlarından min nəfərə qədəri öz dəstəsinə qatıb geri qayıtdı (Süleymanov, 2010, 41; Mərvi, h1358, 59-60). Nadir Herat ətrafındakı döyüşlərdə xüsusi fədakarlıq göstərmiş Mir Məhəmməd xanı Herat hakimi təyin etdi və itaətsizlik meyllərinin aradan qaldırılması məqsədilə Nadir yerli əhalinin böyük bir hissəsini şəhər ətrafına köçürdü (Süleymanov, 2010, 206). İsfahanın cənub-qərbində cərəyan etmiş 21 günlük müharibənin gedişində Nadir bir qrup bəxtiyari ailəsinin Xorasanda yerləşdirilməsinə əmr vermişdi. Bu addım həmin ərazidə yaşayan kiçik Zənd qəbiləsinə qarşı yönəlmişdi. Bu qəbilənin nümayəndələri bu ərazidə hələ əfqan işğalı dövründə məskunlaşmışdı. Nadir bu qəbilənin nümayəndələrinə qarşı çox sərt cəza tədbiri görmüşdü. Belə ki, onun əmrinə əsasən bu qəbiləyə aid olan 500-ə qədər ailə qətlə yetirilmişdi. Həmin ailələrin qadın və uşaqları isə əsir götürülmüşdü (Aksvörti, 2018, 226).

Naxçıvan ətrafından 1000 erməni ailəsinin (burada etnik olaraq haylar deyil, dini olaraq ermənilıyi qəbul etmiş xristian əhali, daha dəqiq desək qriqoryanlaşmış albanlar nəzərdə tutulur). Məşhədə köçürülməsi "Aləm Ara-ye Naderi"də çox böyük təəssüflə xatırlanır. M.K.Mərvi yazır ki, ermənilər Məşhədə köçürüləndən sonra bu şəhərdə xristian kilsəsi tikildi, şərabxana və bütxana açıldı. Şərabxanalarda açıq şəkildə şərab içilir, musiqi çalınır, kişilər xanımlarla bir yerdə rəqs edir, ismətsizlik yayılır, daş ürəkli rəiyyətin insafsızlığı artır, varlıların kasıblara şəfqəti azalır, övladların ataların üzünə ağ olması artırdı (Mərvi, 1358a, 1086).

**TƏDQİQAT METODU**

Qarşıya qoyulmuş məsələni həll etmək üçün müqayisəli təhlil metodundan istifadə edilmişdir.

**NƏTİCƏ**

Nadir şahın köçürmə siyasəti əslində imperiyanı möhkəmləndirməyə xidmət etsə də, Səfəvilər dövründə artıq çökmüş idarəçilik sistemini yenidən nizamlamağa imkan vermədi. Çünki uzun müddət müəyyən ərazilərdə möhkləmlənmiş tayfalar bu köç dalğalarını nüfuzlarının sarsıdılmasına yönəlmiş bir addım kimi qiymətləndirdilər. Təsadüfi deyil ki, Nadir şahın hakimiyyətinin son illərində qiyamların sayı daha artdı. Məsələn, 1743-cü ilin əvvəlində və sonunda yalançı Sam Mirzənin təhriki ilə Şirvanda, 1744-1745-ci illərdə Hacı Çələbinin başçlığı altında Şəkidə, Fars bəylərbəyi Tağı xanın rəhbərliyi altında 1744-cü ildə Fars vilayətində, 1744-cü ildə qacarların Məhəmməd Həsən xanın rəhbərliyi altında Astrabadda, 1744-cü ildə köçəri kürd tayfalarının Xoy və Səlmasda, 1744-cü ildə köçəri ərəb qəbilələrinin Şeyx Əhməd Mədəninin rəhbərliyi altında Bəhreyn və Məsqətdə, 1743-46-cı illərdə Xorasan, Kerman və Luristan vilayətlərində baş verən qiyamları, 1743-cü ildə ölkədən qaçqın düşənlərin köməyi və Osmanlı dövlətinin dəstəyi ilə baş qaldıran Səfi Mirzə qiyamı, 1747-ci ildə Sistan əhalisinin üsyanını qeyd edə bilərik. Bütövlükdə, aparılan tədqiqatın gedişində bəlli olur ki, Nadir şahın dövlətini qoruyub saxlamaq məqsədi etdiyi köçlər heç də istənilən nəticəni verməmiş və dövlətin süqutunu daha da tezləşdirmiş və hadisələrin sonrakı dövründə ayrı-ayrı xanlıqların meydana çıxmasına gətirib çıxarmışdır.

**ƏDƏBİYYAT SİYAHISI**

1. Axworthy, M. (2008). A History of Iran: Empire of the Mind. New York: Basic Books.
2. Aksvörti, M. (2018). Nadir şah. Şərq-Qərb. Bakı.
3. Astrabadi, M. (h.1368). Cahanguşa-yi Nadiri. Be ehtemam-e Səid Abdullah Ənvər. Tehran.
4. Bayramlı, Z. (2015). Azərbaycan Səfəvilər dövlətinin quruluşu və idarə olunmasında türk qızılbaş əyanlarının rolu. Avropa, Bakı.
5. Bayramova, N.Ş. (2009). Şamaxı xanlığı. Təhsil. Bakı.

6. Əfşar, C. (2014). Azərbaycan Nadir Əfşar dövləti. Bakı.
7. Lockhart, L. (1938). Nadir Shah. Luzac & CO. London.
8. Mahmudov, Y., Mustafazadə, T. (2019). Nadir Şah Əfşar: Tarixin gedişini dəyişdirən dahi sərkərdə. Turxan NPB. Bakı.
9. Mərvi, M. (1358). Aləm Ara-ye Naderi. C.I. Tehran.
10. Mərvi, M. (1358a). Aləm Ara-ye Naderi. C.III, Tehran.
11. Perry, J. (1975). Forced Migration in Iran during the Seventeenth and Eighteenth Centuries. Iranian Studies, 8 (4), 199-215
12. Solaiman, M. (2017). Etnohistory of the qizilbash in Kabul: migration, state and shi'a minority. Submitted to the faculty of the University Graduate School in partial fulfillment of the requirements for the degree Doctor of Philosophy in the Department of Anthropology Indiana University.
13. Süleymanov, M. (2010). Nadir şah. Tehran.
14. Tahirzadə, Ə. (2002). Nadir şah Əfşar (Tərcümeyi-hal oçerki). Kür nəşriyyatı. Bakı.
15. Turchin, P., Adams, J.M., Hall, Th.D. (2006). East-West Orientation of Historical Empires and Modern States. Journal of World-systems research. XII, 219-229
16. Кишмишов, С. (1889). Походы Надир-шаха в Герат, Кандагар, Индию и события в Персии после его смерти. Тифлис.

# HAYDAR ALİYEV VE GENÇLER SİYASETİ

**AHMEDLİ VÜGAR İLGAR OĞLU**
AMEA Gence Şubesi
Uluslararası İlişkiler Şubesi
Öncü Uzman
ahmedli9420@gmail.com
GENCE / AZERBAYCAN

*Dünyanın karmaşık iktisadi sistemine entegre olmak için bize modern, hazırlıklı, yabancı dilleri bilen ve dünya tecrübesini benimsemiş gençler lazımdır.*
**Haydar Aliyev**

## ÖNSÖZ

Bu makalemizde ömrünü siyasete, halkına, vatanına armağan etmiş Umummilli Lider Haydar Aliyev'in Azerbaycan için dur durak bilmeksizin çalışmasına, Azerbaycan gençlerinin yetişmesi için yürüttüğü sosyal ve siyasial gayretleri incelenmiş, SSCB'den ayrıldıktan sonra yeni kurulmuş bir Cumhuriyetin kadrolarının formalaşmasında attığı adımlar inkar edilemez ve paha biçilemez hadiseler olduğundan bahsedilmiştir. 2003 yılındakı vefatından sonra da temelini attığı gençler siyasetinin oğlu Cumhurbaşkanı İlham Aliyev tarafından günümüzde de daha da ileriye taşınarak yürütüldüğünden geniş bahsedilmiştir.

**Anahtar kelimeler: Haydar Aliyev'in Gençler siyaseti, İlham Aliyev, Azerbaycan.**

## HEYDAR ALIYEV AND YOUTH POLITICS

**Abstract**

In this article, the non-stop work of National Leader Heydar Aliyev, who devoted his life to politics, his people and his homeland, and his social and political efforts for the education of Azerbaijani youth are examined, and the steps he took in the formation of the cadres of a newly established Republic after leaving the USSR are undeniable and It has been mentioned that these are

priceless events. After his death in 2003, it has been widely mentioned that the youth policy, which he laid the foundations for, is carried forward by his son, President Ilham Aliyev, today.

**Key words: Heydar Aliyev and Youth politics, Ilham Aliyev, Azerbaijan.**

## GİRİŞ

Tarih boyu bir çok halklar kendilerinin ileriye dönük umutlarını ilk önce genç nesle bağlamışlardır. Bilgili geniş dünya görüşünü benimsemiş gençlerin yetişdirilmesi her bir ülke için önemli bir meseledir. Zira ülkenin geleceği, mukadderatı şimdiki gençlerden asılı olacaktır.

Ülkenin hertaraflı başarılı ilerlemesine her bir genç kendi katkısını vermelidir. Nesiller değişiyor, ülkeler gelişiyor ancak gelenekler, milli değerler yaşıyor. Genç neslin vatanperverliği, vatana sevgi ruhunda terbiye olunması esas maksatlardan biri olmalıdır. Bu gün gurur hissi ile söyleye biliriz ki, günümüz Azerbaycan gençliği milli-manevi değerlerini, kendi ana dilimizi, atalarımızdan kalan adet ve geleneklerimizi göz bebeği gibi koruyup yaşatıyor.

## GELİŞME

### TARİHİ KARŞILAŞTIRMALI METOT

Her milletin hayatında milli ve manevi değerleri büyük önem taşımaktadır. Halkın kültürünün gelişmesinde ve millî şuurun oluşmasında da önemli rol oynar. Hepimizin bildiği gibi milli ve manevi değerleri olmayan bir millet gerçek bir millet olamaz. Bu konuda Haydar Aliyev'in gururla ve yüksek sesle beyan ettiği ''Ben her zaman gurur duydum, bugün de gurur duyuyorum ki, ben Azerbaycanlıyım!'' açıklaması millet olarak milli ve manevi değerlere ne derece bağlı olduğumuzun açık numunesidir.

Bu xalqın məhəbbəti məni ərlər içində ər oğlu ər elədi,
Bir evin Heydəriydim, bu dünyaya gələndə,
Bu xalq məni qaldırıb bütün zamanlar üçün əsl Heydər elədi.
Azərbaycanım kimi diriyəm, əbədiyəm, möhtəşəməm, canlıyam,
Həmişə fəxr etmişəm – "mən Azərbaycanlıyam!" (Zelimhan, 2013).

Azerbaycan'da eğitimin büyük tarihi geçmişi ve gelenekleri mevcuttur. Her zaman Azerbaycan halkı eğitim almaya, öğrenmeye, okumaya hususi önem vermiştir ve şimdi de böyledir. 1991 yılında devlet bağımsızlığını kazandıktan sonra Azerbaycan bir çok sahalarda olduğu gibi eğitim sahasında da derin çöküş devrini yaşamaya başladı. Yalnız 1993 yılında halkın talebi ile ikinci defa siyasi iktidara dönen Umummilli Lider Haydar Aliyev bütün sahalarda olduğu gibi eğitim sahasında da reformlar gerçekleştirdi. Azerbaycan'da eğitim sisteminin milli ve umumbeşeri değerler esasında yeniden kurulması ve geliştirilmesi Ulu Önder Haydar Aliyev'in faaliyetinde öncü istikamet gibi daima devlet siyasetinin merkezinde yer tutmuştur. Onun eğitime olan ilgisi sayesinde Azerbaycan'ın modern eğitim siyaseti umummilli, tarihi-manevi faktörleri, önceki yılların ilerici tecrübelerini inkar etmeden global eğitim çağırımlarına, sivil dünyanın çoğu tarafından kabul olunmuş değerlere ve tecrübelere uygun şekilde hayata geçiriliyor. Ulu Önder Haydar Aliyev'in "modern eğitim" kavramı okullarda ve eğitim kurumlarında okutulan eğitimin en son ve modern versiyonu gibi milli devlet kuruculuğunda devletçiliğin temellerinden biri gibi her zaman ön planda olmuştur.

Eğitim ülkenin devamlı gelişimi ve iktisadi artımını temin eden esas faktörlerdendir. Her bir halk geleceğe inşa ettiği eğitimin üzerinde yükseliyor. Bu manada Ulu Önder H.Aliyev'in Azerbaycanda Eğitim kavramı bu strateji sahanı sağlam temeller üzerinde inşa etmeye esas yaratmıştır.

Ulu Önder H.Aliyev siyasi rehberliğinin ilk evrelerinde gelecekte Azerbaycan'ın bağımsız yaşaya bilmesi için tarihi fırsattan muazzam bir şekilde istifade etmiş, cumhuriyetin bütün sahalarında olduğu gibi, eğitimin gelişmesinde de yeni bir seviyenin esasını koymuştur.

Eğitim her bir devletin, ülkenin, cemiyet hayatının, faaliyetinin mühüm bir sahasıdır. ''Cemiyet eğitimsiz gelişe bilmez'', diyen Cumhurbaşkanı Haydar Aliyev insan kapitalinin geliştirilmesi fiziki kapitalin oluşturulmasına değil bilgi ekonomisinin formalaşmasına yönelmiştir.

Azerbaycan hükumeti modern gençlerimizle beraber gelecekte yetişecek gençleri de düşünümüş, şöyle ki Azerbaycan bağımsızlık elde ettikten sonra kendi doğal kaynaklarını kullanma meselesi gündeme geldi. Zira Cumhuriyetimize petrol servetlerinin sahibi gibi tarihi şans verilmişdi ve

bundan da devlet başkanı H.Aliyev büyük bir titizlikle istifade etti. İri hacimli petrol sözleşmeleri bağlandı. Azerbaycan petrolünü dünya pazarına taşıyacak petrol kemerleri yapıldı. En önemlisi petrol satışından gelirler elde ettikten sonra derhal ‘’Petrol Fonu’’ kuruldu. Bu fonun esas gelirleri gelecek nesiller için emanet gibi saklanılacak, gelecek nesiller, gençler fonu imkanlarından istifade edecekler.

Ülkemizde başarılı gençler siyasetinin temeli Umummilli Lider Haydar Aliyev tarafından atılmıştır. Ulu Önder her zaman gençlere özel ilgi ile yanaşmış, gençlerin problemleri her an onun ilgi odağı olmuş, kabiliyyetli, muasır dünyagörüşüne malik genç neslin yetişmesine oldukça büyük ehemiyyet vermiştir. Gençlerimizin ve insanımızın ahlaki değerleri esas alınarak büyütülmesi ve yetişdirilmesi, eğitim kurumlarında ahlaken sağlıklı ve temiz insanlar yetiştirilmesi konusu daha önemli olmalıdır.

Gençliğin sağlam ruhlu, zeki, yüksek, manevi terbiyeye malik olması devlet için önemlidir. Eğer cemiyetin öncü tabakası gençler ise, o zaman gelişim ve entegre sırf onlarla beraber adımlıyor. Cemiyetin geleceği gençlerdir ve kendi geleceğini düşünen her bir cemiyet gençlere ilgi gösterir. Bununla da aslında kendisinin mutlu geleceğinin temin edilmesi istikametinde mühim adımlar atmış olur. Bu malum hakikati Azerbaycan’da herkesten iyi anlayan ve bunun hayata geçirilmesi için lazım olan çalışmaları yapan yegane bir insan var idi ise o da H.Aliyev idi.

Gençlerin sosyal ve siyasi hayatta aktifliyini artırmak için hayata geçirilen Devlet Programının uygulanması, kurumlarda genç uzmanlara öncülük verilmesi Umummilli Lider Haydar Aliyev’in belirlenmiş gençler siyasetinin başarılı neticesidir. Ülkemizde gençlerle iş sahasında mühim programların yapılması Haydar Aliyev ile ilgilidir. Azerbaycan’ın başarısında, onun iktisadi, siyasi ve medeni hayatında, demokratik devlet ve cemiyetin kurulmasında gençlerin rolü inkar edilemez. Azerbaycan’ın tarihine dikkat etsek, onun her aşamasında gençlerin kendisine mahsus rol oynadığının şahidi oluruz.

Ulu Önder Haydar Aliyev’in Azerbaycan gençliğine büyük ilgisi yalnızca bağımsızlık yıllarında değil, daha SSCB döneminde de aşikar bir şekilde belli oluyordu. Şöyle ki, geçen asrın 70.yıllarında H.Aliyev’in teşebbüsü ve bir sürü gayretlerin neticesinde on beş binden fazla azerbaycanlı SSCB’nin 170-den fazla eğitim kurumlarında üniversite okumuştular. Bu adım Azerbaycan’da farklı sahalar üzre donanımlı kadro yapısının oluşmasına hizmet etmiştir.

O gençlerin büyük bir kısmı bu gün bağımsız Azerbaycan Cumhuriyeti’nin devlet kuruculuğunda yakından iştirak ediyor, hukuk, ilim, tıbb, medeniyetimizin inkişafında sonsuz hizmet gösteriyorlar. Ulu Önderimiz bilgisi, kabiliyeti ile seçilen gençlere ilgi ve dikkat göstermeği başarıyordu. Şüphesiz ki, bu gençlerin bir çoğunu kendisi seçiyor, onların kabiliyetini ve bilgisini sınavdan geçirdikten sonra SSCB’ye eğitim almaya gönderiyordu.

1993 yılında halkın isteği üzerine iktidara geri dönen Ulu Önder’in dikkat ettiği ve ön planda tuttuğu meselelerden biri de gençlerin siyasi hayata katılımı ile ilgili olmuştur. Uygulanan gençler siyasetinin maksatı milli ve manevi değerlere dayanan, vatanına, halkına bağlı olan muasır düşünceli genç neslin yetişdirilmesi, bu gençliğin kabiliyyetinden devletin geleceği adına istifade edilmesidir.

H.Aliyev’in belirlediği gençler siyaseti asırlar boyu halkımızın malik olduğu milli manevi değerler esasında, bağımsızlık, devletçilik, özgürlük ve onların korunması için vatanperver genç neslin yetişdirilmesine hizmet ediyor.

Umummilli Lider’in Azerbaycan gençliği ile ilgili olan konseptine göre her bir gençin bağımsız düşünce yapısı olmalıdır. ‘’Yalnız milli karakterli, düşünceli gençler bağımsız devleti geliştire ve koruya bilir. Gençlerin ictimai ve siyasi proseslere katıla bilmeleri için manevi esasları olmalıdır. Bu manevi esas halkımızın asırlar boyu elde ettiği manevi değerler, vatanverperlik duygusu, toprağa bağlılık, milli tarihimize olan sevgiden ibarettir.

2 şubat 1996 yılında bağımsız Azerbaycan gençlerinin ilk formu yapılmıştır. Foruma Umummilli Lider’in kendisi şahsen katılmıştır. Bundan sonra, 1şubat 1997 yılında formun ilk yıl dönümünü kutlamak için gençlerle buluşan Umummilli Lider ‘’2 şubat Azerbaycan Gençler günü’’ ilan edilmesi hakkında kararname imzalamıştır. Umummilli Lider forumda gençlere hitap ederek demiştir: ‘’Ben sizi gördükçe daha da ruhlanıyorum, siz Bana daha da ilham veriyorsunuz ve sizden ilham alarak Azerbaycanı daha da kudretli etmeye çalışıyorum. Emin ola bilirsiniz ki, Azerbaycan gençlerinin iyi yaşaması, eğitim alması için, iyi emek faaliyeti göstermesi için bundan sonra da elimizden geleni yapacağız’’.

Temeli Umummilli lider H.Aliyev tarafından atılan gençler siyasetinin Cumhurbaşkanı İlham Aliyev tarafından günümüzde de hâlâ başarılı şekilde devam ettirilmesinin sonucudur ki, bu gün Azerbaycan gençleri bütün sahalarda kendilerini kanıtlıyorlar.

Takdir edilmelidir ki, Umummilli Liderin temelini attığı gencler siyasetini devam ettiren Cumhurbaşkanı İlham Aliyev devlet büyüğü olarak faaliyetinin ilk evrelerinden başlayarak art arda imzaladığı kararnamelerde verdiği gösterişlerde kadro potansiyelini, özellikle de gençlerin eğitimine, sağlığına, boş vakitlerini daha da verimli organizasyona odaklanır. Genç potansiyellerin aşikar edilmesi, onların potansiyel imkanlarının geliştirilmesi ve yüksek seviyeli eğitim alması için uygun ortamın oluşturulması da gençler siyasetinin istikametlerinden biridir.

Cumhurbaşkanı İlham Aliyev'in gençlerle görüşmelerinin birinde söylediği gibi, ülkemizde başarılı gençler siyaseti hayata geçiriliyor: ''Azerbaycan'da gençler siyaseti çok başarılı yürütülüyor. Bu siyasetin temelini Ulu Önder atmıştır. Haydar Aliyev'in teşebbüsü ile gençler siyasetinin başlıca ideolojileri muayyen edilmiştir. Son 20 yılda Azerbaycanda bu siyaset çok başarıyla yürütülmüştür. Artık bu yıllar içinde, bağımsızlık devrinde gençler yetişmişler ve ülkemizin hayatında mühüm rol oynuyorlar.

Devletin gençler üzerindeki siyaseti ondan ibaretdir ki, Azerbaycan gençleri bilgili, zeki, vatana bağlı olsunlar ve ülkemizin gelecek inkişafına katkılarını versinler. Gençlerin vatanperverlik ruhunda büyümeleri de çok mühim önem taşıyor''.

Bundan ilave, devlet başkanının ''2007-2015 yıllarında Azerbaycan gençlerinin yabancı ülkelerde eğitim alması için ''Devlet Programı'nın'' tasdik edilmesi hakkında kararname gençlere gösterilen ilginin parlak nümunesidir.

Artık Azerbaycan'da yüksek entellektüel seviyeye, vatanperverlik hissine, milli düşünceyei benimsemiş genç nesil oluşmuştur. Azerbaycan gençlerinin ülkenin ictimai-siyasi hayatında rolü gün geçtikçe daha da artıyor. Hali hazırda Cumhuriyette mevcut olan yüzlerle sivil toplum kurluşları ve gençler teşkilatlarının faaliyeti devletin sunduğu ortam sayesinde mümkün olmuş. Tam olarak bundan dolayıdır ki, gençlere destek ve dikkat göstermesinin neticesinde Azerbaycan gençliğinde kendisine, kendi gücüne, kabiliyetine inam hissi artmış. Gencler de kendilerinde devlet himayesini daima hiss ederek, onlara gösterilen ilgiyi layıklı bir şekilde yerine getirmek için durmadan çalışıyorlar. Bu yüksek ilgiye cevap olarak Azerbaycan'ın parlak geleceğinin teminatçısı olan gençler tek ve bağımsız Azerbaycan idealleri için bütün güçlerini seferber ediyor, Vatanın gelişimi için gayretle çalışıyor, onlara inanan Cumhurbaşkanı İlham Aliyev'in başarılı dahili ve uluslararası siyasetini destekliyorlar.

Biz bir genç olarak inanıyoruz ki, Haydar Aliyev'in siyasi devamçısı olan Cumhurbaşkanı'nın vatana ve toprağa bağlı olan sevgisi ile vatanımız Azerbaycanı daha da ileriye taşımak yolunda dur durak bilmeksizin devam edecektir. Onun liderlik kabiliyeti bir daha kanıtlıyorki bütün meseleler zamanla lehimize değişecek ve vatanımız daha da güçlenecek güçlü kudretli bir memlekete çevrilecek.

**SONUÇ**

Ömrünün yarısından çoğunu siyasete, Azerbaycan'ın geleceği, geçmişi bugünlere gelmesine adamış Umummilli Liderimiz Haydar Aliyev'in hizmetlerini hiç bir ölçü cihazları ile ölçmek mümkün değil. Azerbaycan'ın en ağır, en zor günlerinde vatana ve halka kendi hayatını tehlike altında bırakarak destek oldu. O güçlü nutukçu, güçlü tarihçi-edebiyatçı, sosyolog, psikolog, filozof ve aynı zamanda farklı bir siyasetçidir.

Bu gün genclerin üzerine büyük sorumluluk düşüyor. Ulu Önder H.Aliyev'in devletçiliğin ve bağımsızlığın kuvvetlendirilmesi ve geliştirilmesi, demokratik cemiyet kuruculuğu, siyasi, hukuki ve iktisadi reformların hayata geçirilmesi ile bağlı ideolojilerine sadakatle devam etmek, Azerbaycan'ın bu günü ve gelecek inkişafına tavsiyemizi, enerjimizi bilgi ve başarımızı İlham Aliyev'in hayata geçirdiği devlet siyasetini desteklemek için sarf etmelidirler.

Bu gün tam olarak söyleye biliriz ki, Ulu Önder Haydar Aliyev'in gençliğe ve gençlere ilgisi şimdi yeni aşamalara kadem koymuştur. Ülkemizde genç neslin problemlerinin halli, onların cemiyet hayatında layıklı kadro gibi iştirakının temin edilmesi, milli örf ve adetlere, saf değerlere bağlılığı için devlet seviyesinde bütün etkinlikler hayata geçiriliyor.

Böylelikle Haydar Aliyev'in gösterdiği dikkat ve kaygı yüksek entelektüel seviyeli, vatanperver ruhlu, milletini, vatanını seven gençlerin yetişmesi ile neticelendi. Şüphesiz ki, esası umummilli lider Haydar Aliyev tarafından qoyulan ve onun başarılı devamçısı Cumhurbaşkanı İlham Aliyev tarafından devam ettirilen gençler siyaseti muasır, inkişaf etmiş, yüksek entellektüel bilgiye malik Azerbaycan

gençliğinin yetişmesinde mühim rol oynuyor. Bu siyasetin esasında milli manevi değerlere sadık, kendi bilgi ve başarılarını Azerbaycan'ın bağımsızlığının ve devletçiliğinin korunması ve inkişafı yolunda sarf etmeye, Vatanın bağımsızlığı uğrunda can vermeye hazır, vatanperverlik ruhunda terbiye olunan genç neslin yetişdirilmesi dayanıyor. Bu gün her bir Azerbaycan genci Umummilli Lider H.Aliyev'in ideolojilerini kendi faaliyetinde daima rehber tutmalı, Azerbaycan gençliğinin lideri olan saygı değer Cumhurbaşkanımız İlham Aliyev'in rehberliği altında Azerbaycan bağımsızlığının ebedi yaşaması için elinden geleni yapmalıdır. Elbet ki, bu günün gençliği vatanperver, sağlam ruhlu, yüksek entelektüel seviyeli, kendine inamlı başarılı gençliktir.

**Kaynakça**

1.Hüseynov, S. Haydar Aliyev ve milli ve manevi değerlerimiz. (2009, 9 Aralık). Khalq gazetesi.

2.Kerimov, E. (2023). Azerbaycancılık İdeolojisinin Kurucusu Hayder Aliyev. Akademik Tarih ve Düşünce Dergisi, Azerbaycan Halkının Milli Lideri Haydar Alirza Oğlu Aliyev'in Doğumunun 100. Yılı Özel Sayısı, 10 (1), 184-190.

3.Məhərrəmova,S. (2023).Heydər Əliyevin Təhsil Konsepsiyası və Davamlı İnkişaf Meylləri.Akademik Tarih ve Düşünce Dergisi, Azerbaycan Halkının Milli Lideri Haydar Alirza Oğlu Aliyev'in Doğumunun 100. Yılı Özel Sayısı, 10(1), 230-242.

4.Mirzayev, H. (2023).Haydar Aliyev'in Fikirleri Milli ve Manevi Değerlerimizin Gelişimine Önemli Bir Katkıdır Akademik Tarih ve DüşünceDergisi,Azerbaycan Halkının Milli Lideri Haydar Alirza Oğlu Aliyev'in Doğumunun 100. Yılı Özel Sayısı, 10 (1), 243-250.

5.Sadıqov, E. (202). Ulu Öndər Heydər Əliyev və Azərbaycan Gəncliyinin İnkişaf Strategiyası. Akademik Tarih ve Düşünce Dergisi, Azerbaycan Halkının Milli Lideri Haydar Alirza Oğlu Aliyev'in Doğumunun 100. Yılı Özel Sayısı, 10 (1), 191-199.

6.Zelimhan Yakup, Eserleri 13. Cild, Şerq-Qerb neşriyat, 2013.

7.https://525.az/news/233913-ulu-onder-ve-azerbaycan-gencliyi--gunel-hesenova-yazir

8.https://lib.aliyevheritage.org/tk/1570012.html

9.https://lib.aliyevheritage.org/tk/810392.html

10.https://lib.aliyevheritage.org/tk/8359076.html

11.https://sherg.az/aktual/223205

# ÇİN-İRAN İQTİSADİ ƏMƏKDAŞLIĞI. ÇİNİN ZİDDİYYƏTLİ MÖVQEYİ

**ÜLKƏR ƏLİYEVA**
AMEA / Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu
aliyevaulker82@hotmail.com
AZƏRBAYCAN / BAKI

**XÜLASƏ**

Məqalə Çin və İran arasında Çinin "Bir kəmər-bir yol" təşəbbüsü, İrana qarşı sanksiyalar rejimi və İranla münasibətlərinə görə Qərbin Çinə təzyiqləri, Çin və İran arasında Hərtərəfli əməkdaşlığa dair sazişin imzalanması kontekstində iki ölkə arasında iqtisadi əməkdaşlığın ziddiyyətli məqamlarının tədqiqinə həsr olunmuşdur. Tədqiqat işində Çin və İranın iqtisadi əməkdaşlığında tərəflərin məqsədləri, Çinin İranla Qərb və onun regional müttəfiqləri arasında balanslaşdırma siyasətini həyata keçirmək yolları və bu sahədə Çin-İran münasibətlərində mövcud olan ziddiyyətlər, eləcə də Şanxay Əməkdaşlıq Təşkilatı çərçivəsində Çin-İran münasibətləri, bu istiqamətdə Çinin ziddiyyətli fəaliyyətinin səbəbləri nəzərdən keçirilmiş, eləcə də Çinin "Bir kəmər-bir yol" layihəsi çərçivəsində iki ölkə arasında əməkdaşlıq, İranda nəqliyyat layihələrinə Çinin investisiyaları və bu sahədə

maraqları, birgə iştirak etdikləri nəqliyyat layihələri ilə paralel olaraq bəzən bir-birinin maraqlarına zidd olan layihələrdə də iştirak etmələrinin səbəbləri, Türkiyənin təklif etdiyi və İranın maraqlarına zidd olan Orta dəhlizlə bağlı problemlər, Çinin və İranın Orta dəhliz və ya Zəngəzur dəhlizi planına münasibəti kimi məsələlərə diqqət yetirilmişdir. Tədqiqat mövzusu son dövrdə beynəlxalq münasibətlərdə mövcud olan vəziyyəti əks etdirməsi baxımından aktualdır. Elmi ədəbiyyat və mətbuatda daha Çin-İran münasibətlərində yaxınlaşma və dostluq münasibətləri tədqiqat obyekti olduğu halda, məqalədə bu iki tərəfdaş arasında ziddiyyətlərin diqqət mərkəzində tutulması və iki ölkə arasında iqtisadi əlaqələrə sırf ziddiyyətlər kontekstindən baxılması bu sahədə elmi-tarixi tədqiqatlarda fərqli yanaşma kimi dəyərləndirilə bilər.

**AÇAR SÖZLƏR: Çin, İran, Hərtərəfli əməkdaşlığa dair müqavilə, Şanxay Əməkdaşlıq Təşkilatı**

## GİRİŞ

Çin və İran arasında münasibətlər, xüsusilə iki ölkə arasında Çinin "Bir kəmər-bir yol" təşəbbüsü çərçivəsində və İrana qarşı sanksiyalar kontekstində əməkdaşlıq, Amerika Birləşmiş Ştatlarının İran məsələsində Çinə təzyiqləri və Çinin bu baxımdan dilemma qarşısında qalması və tərəflər arasında yeritdiyi balanslaşdırma siyasəti beynəlxalq münasibətlərdə aktual problemlər olaraq daim diqqət mərkəzindədir. Bu baxımdan qeyd olunan məsələlər dünya mətbuatı, elmi araşdırmalarında əsas təhlil və tədqiqat obyektidir.

Məqalənin yazılmasında məqsəd yuxarıda qeyd olunan problemlər kontekstində Çin və İran arasında münasibətlərin inkişaf edən tərəfləri ilə yanaşı ziddiyyətli cəhətlərinə də aydınlıq gətirməkdir. Belə ki, Çin və İran arasında sıx əməkdaşlığın mövcudluğuna baxmayaraq, bəzi sahələrdə əlaqələrdə məhdudiyyət İranı qane etmir. İran mətbuatında bəzi İran rəsmiləri və analitiklərinin Çinin fəaliyyəti ilə bağlı fikir və tənqidləri öz əksini tapmışdır. Əslində Çin İranla əməkdaşlıqda maraqlı olsa da, bu ölkə ilə münasibətlərinə müəyyən məhdudiyyətlər qoymağa məcburdur. Çinin bu fəaliyyətinin beynəlxalq münasibətlərdəki problemlərə əsaslanan səbəbləri vardır. Tədqiqat işində Çinin İrana münasibətdə ehtiyatlı davranışının səbəbləri təhlil edilir.

İlk növbədə qeyd edilməlidir ki, Çinin müttəfiqə deyil, ticarət-iqtisadi tərəfdaşa ehtiyacı var. Başqa sözlə, Çin heç bir dövlətlə müttəfiq deyil. Bundan əlavə, İran hökumətinin münaqişələrdə iştirakı onun Çinlə tərəfdaşlığına mənfi təsir göstərir. Nüvə problemi ilə yanaşı, İranın Yaxın Şərqdəki proseslərə aktiv müdaxiləsi və Qərbə qarşı meydan oxuması daimi gərginliyə səbəb olur. Çin bu vəziyyətdə dilemma ilə üzləşir. Çin rəhbərliyi İranla iqtisadi əməkdaşlıq və Vaşinqtonun Çinə rəqib deyil, məsuliyyətli maraqlı tərəf və strateji tərəfdaş kimi baxmasına nail olmaq kimi iki mühüm marağını balanslaşdırmağa çalışır.

Pekin İranla münasibətlərinə görə Qərb dünyasında onun haqqında "məsuliyyətsiz güc" təsəvvürünün formalaşmasını istəmir (1, 11). Çin enerji şirkətləri diversifikasiya səyləri çərçivəsində Yaxın Şərqlə paralel olaraq, Afrika və Mərkəzi Asiyaya da böyük miqdarda investisiyalar qoyur. Bu, İran körfəzindən mümkün qədər uzaq mövqe tutmaq zərurəti kimi qiymətləndirilə bilər, həm də yerli qeyri-sabitlik, ABŞ-ın hərbi üstünlüyü və neft tədarükünün dəniz yolu ilə daşınması nəticəsində yaranan təhlükə və qeyri-müəyyənliklərə cavabdır.

Tədqiqatın aparılmasında analiz, ümumiləşdirmə, tarixi təsvir və müqayisə metodları tətbiq edilərək iki ölkə arasında münasibətlərin inkişaf xüsusiyyətləri, beynəlxalq münasibətlərin onlara təsirinin nəticələri və eyni zamanda Çinin İran siyasətinin onun bütövlükdə xarici və regional siyasətində necə əks olunması ilə bağlı ətraflı təsəvvür yaradılmış, problemə elmi-tarixi baxımdan aydınlıq gətirilmişdir.

## ÇİNİN İRANA SƏRMAYE QOYULUŞLARI. TƏRƏFLƏRİN MARAQLARI

Son dövrlərdə İran rəsmi mətbuatı istisna olmaqla qalan informasiya vasitələrində ölkəyə qoyulan Çin investisiyalarının həcminin azalması və Çində iranlı iş adamları üçün şəraitin olmamasından narazılıqlar səslənir. Hətta bəzi mətbuat orqanlarında səsləndirilən fikirlərə görə, İranın Çin mallarının çatdırılma marşrutlarından biri kimi çıxış etməsi perspektivləri bu nöqtədə çox qeyri-müəyyəndir, çünki İrandakı rejimin hazırkı formada mövcudluğu sual altında qalır. Beləv ki, İran hökumətinə qarşı daxili etirazlar və mitinqlər Çində İranın sərmayə qoyuluşu üçün etibarlı olmadığına dair təsəvvür yaratmışdır. (2).

Qeyd edək ki, İranla əməkdaşlıq edən yeganə Çin bankı olan Kunlun dövlət bankı İranın Maliyyə Fəaliyyət Qrupuna qoşulmaması səbəbindən bu ölkəni 2017-ci ildən yüksək riskli biznes mühiti olaraq təsnif etmişdir. Çünki ekspertlərin sözlərinə görə, Maliyyə Tədbirləri üzrə İşçi Qrupun (FATF) tələbləri İranın Hizbullah kimi qruplara maliyyə dəstəyi verməsini qeyri-mümkün edə bilər və bu ölkənin bank sektoru geniş beynəlxalq yoxlamaya məruz qala bilər (3, 19).

Lakin qeyd olunan problemlərə baxmayaraq, Çin İran kimi onunla ortaq və faydalı maraqları olan müttəfiqini itirmək istəmir və neft alışı əvəzində İrana məhdud miqdarda da olsa kredit və investisiyalar verməyə davam edir. Belə ki, mediada yayılan xəbərlərə əsasən, 2021-ci ildə bağlanmış 25 il müddətinə hərtərəfli əməkdaşlığı nəzərdə tutan müqaviləyə görə, qeyd olunan müddət ərzində Çinin İrana 400 milyard dollar sərmaye qoyması nəzərdə tutulmuşdur (4). Tərəflərin İran-Çin bankının yaradılması barədə razılaşmasına əsasən bu bankdan tədarükün ödənilməsi üçün istifadə oluna bilər (5). Məlumdur ki, sanksiyalar səbəbindən Çin dövlət bankı İranla əməliyyatları dayandırmışdır.

## İRANIN ŞANXAY ƏMƏKDAŞLIQ TƏŞKİLATINDA ÜZVLÜYÜ İLƏ BAĞLI ÇİNİN MÖVQEYİ

Çin rəhbərliyi Birləşmiş Ştatlarla münasibətlərindəki məhdudiyyətləri bilir və bu ölkə ilə birbaşa qarşıdurmadan ehtiyat edir. Bu səbəbdən Çin Şanxay Əməkdaşlıq Təşkilatına (ŞƏT) Amerika əleyhinə yönəlmiş qurum görüntüsü verməmək üçün İranın Şanxay Əməkdaşlıq Təşkilatına (ŞƏT) tamhüquqlu üzvlüyünə uzun müddət imkan vermirdi. (3, 10-11). 2005-ci ildə İranın Şanxay Əməkdaşlıq Təşkilatında yalnız müşahidəçi üzv olaraq iştirakı təmin edildi. 24 mart 2008-ci ildə İran ŞƏT-na tamhüquqlu üzv olmaq üçün müraciət etməsinə və Rusiyanın onu dəstəkləməsinə baxmayaraq, Çin buna qarşı çıxdığı üçün üzvlük reallaşmadı (1, 11). Çünki Çin onun iqtisadi inkişafına mane olacaq heç bir amilin mövcudluğuna yol vermir. Lakin eyni zamanda İranla əməkdaşlıq da Çinin iqtisadi maraqları çərçivəsindədir. Sadəcə Çin bu əməkdaşlığın inkişafı üçün uyğun zamanı özü müəyyən etməyə üstünlük verir. Bu səbəbdən də yalnız 2021-ci ildə İran ŞƏT-na daimi üzv qəbul edildi.

İranın niyə məhz 2021-ci il, mart ayının sonlarında təşkilata üzv qəbul edilməsinə qərar verilməsinin səbəbini nəzərdən keçirək. Pekin təşkilata özünün "yumşaq gücünün" yayılması və təsir vasitəsi kimi baxır. Buna görə də Çin ŞƏT-nın əhatə dairəsini genişləndirməyə və bu strukturu maraqların müzakirəsi klubundan fərqli bir quruma çevirməyə çalışır.

Rusiya ilə ABŞ arasında dialoqda irəliləyişin olmaması, eləcə də Çin və ABŞ arasında münasibətlərin pisləşməsi İranın ŞƏT-na tamhüquqlu üzvlüyü ilə bağlı qərarın qəbulu prosesini sürətləndirdi. Bundan başqa, ekspertlərin əksəriyyətinin fikrincə, İranın üzvlük məsələsində ŞƏT ölkələrinin mövqeyinə məhz Əfqanıstan amili təsir etmişdir. Rusiya Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunun əməkdaşı V.Sajin "Novıe İzvestiya" qəzetinə müsahibəsində qeyd etmişdir ki, "Məhz Əfqanıstandakı proseslərə görə İrana yaşıl işıq yandırılmışdır. Ekspertin fikrincə, İran tarixən çox sayda şiənin yaşadığı qonşu Əfqanıstanda təsir gücünə malikdir. ŞƏT-da Əfqanıstan probleminin mürəkkəbliyini və İran olmadan bu problemin həllinin çətin olacağını dərk edirlər. Ona görə də İranın ŞƏT-nın daimi üzvlüyünə qəbul edilməsi iştirakçı ölkələrə Əfqanıstanın gələcəyi ilə bağlı ümumi baxış bucağı tapmağa kömək edə bilər". İran İslam Respublikasının təşkilata üzv qəbul edilməsinin ikinci səbəbi bu ölkədə siyasi rəhbərliyin dəyişməsi və yeni prezident Seyid İbrahim Rəisinin hakimiyyətə gəlməsidir. İranın hazırkı rəhbərliyi Şərqə meyllidir və tamamilə anti-Qərb yanaşmasına sadiqdir (6, 571 ).

## HƏRTƏRƏFLİ ƏMƏKDAŞLIĞA DAİR ÇİN-İRAN MÜQAVİLƏSI. FƏRQLİ YANAŞMALAR

İranda İran və Çin arasında 2021-ci ildə bağlanmış hərtərəfli əməkdaşlığa dair müqavilə barədə ümidverici rəsmi bəyanatlara baxmayaraq, xalq və müxalifət sazişin ictimaiyyətə bildirilməyən maddələrindən, İran tərəfin Çinə hansı güzəştlərə getdiyindən narahatdır.

Tənqidçilər danışıqlarda şəffaflığın olmamasından şikayətlənirlər və bu müqaviləni Çinin Şri-Lanka ilə bağladığı birtərəfli razılaşma ilə müqayisə edərək, sazişi "İranın sərvətlərinin satılması" adlandırırlar. (4).

Çinin bu müqavilə ilə bağlı mövqeyini nəzərdən keçirək. Müqaviləyə əsasən, 400 milyard dollar məbləğində vəsaitin böyük bir hissəsinin enerji sektoruna, qalan hissəsinin isə dəmir yolu, avtomobil yolları və bir çox digər sahələrə tətbiq edilməsi nəzərdə tutulur. Bu saziş Çin üçün böyük əhəmiyyət kəsb edir. Çin Avropa və Asiyanı əhatə edən beynəlxalq infrastruktur layihəsi olan "Kəmər və Yol" təşəbbüsü çərçivəsində əməkdaşlığa xüsusi diqqət yetirir. İran da Türkiyə kimi dəniz və hava

limanları, dəmir yolları, boru kəmərləri də daxil olmaqla, bu qlobal kommunikasiya sisteminin bir hissəsi ola bilər.

Lakin Çin beynəlxalq vəziyyəti də nəzərə almağa məcburdur. Pekin İranla əməkdaşlığı genişləndirməklə Qərblə yanaşı, regionda da bir çox dövlətlərlə münasibətlərini riskə atır. Bu dövlətlər Səudiyyə Ərəbistanı və İsraildir. İsrail ilə tərəfdaşlıq Çin üçün xüsusi əhəmiyyət daşıyır. Bu ölkə Çini yüksək texnologiyalar ilə təchiz edir. Beləliklə, Pekin mürəkkəb Yaxın Şərq siyasətini balanslaşdırmağa məcburdur (7). Qeyd edək ki, Çin 2023-cü ilin mart ayında Səudiyyə ilə İranı barşdırmağa nail oldu.

İran və Çin arasında Hərtərəfli əməkdaşlığa dair sazişlə bağlı Çini narahat edən digər mühüm məsələ İranda ona qarşı çıxan qüvvələrin fəaliyyətidir. 2015-2018-ci illərdə qərb ölkələri ilə İran arasında nüvə sazişi qüvvədə olduğu dövrdə İslam İnqilabı Keşikçiləri Korpusu (SEPAH) tərəfindən iqtisadi islahatlara qarşı sabotaj İranın böyük miqdarda xarici investisiyalar əldə etməsinə mane oldu. SEPAH xarici şirkətlərin İranda həddindən artıq nüfuz əldə edəcəyindən ehtiyat edirdi. Hazırda 25 illik müqavilənin bağlanmasından sonra da Pekin üçün cavabsız qalan suallar mövcuddur: "SEPAH münasibətini dəyişəcəkmi? Yenə də Çin sərmayəsi üçün problemlər yaradacaqmı?". Etirazçıların Tehran və İsfahan küçələrinə çıxaraq, rejimin "ölkəni çinlilərə satdığını" demələri narahatlıq yaradır. Belə ki, iqtisadiyyatın durğunluğu şəraitində üsyanı alovlandırmaq üçün kiçik qığılcım bəs edə bilər. (7).

Çin Soyuq müharibənin bitməsindən sonra İran-Çin münasibətlərində aparıcı qüvvə olmuşdur. Ona görə də Çinin İran siyasəti həm də İran-Çin münasibətlərinin müəyyənedici amilidir. Bu baxımdan Çinin İran siyasətinin əsasını Yaxın Şərqdəki siyasi, etnik, dini münaqişələrin mürəkkəb strukturunu anlayaraq, regiona təhlükəsizlik baxımından meydan oxuyan bir aktor kimi daxil olmaqdansa, burada iqtisadi və kommersiya maraqlarını əsas tutan bir güc kimi mövcud olmaq ideyası təşkil edir. (1,17).

**İRAN və ÇİN BEYNƏLXALQ NƏQLİYYAT LAYİHƏLƏRİNDƏ**

Məlumdur ki, İran Çinin "Bir kəmər- bir yol" təşəbbüsü çərçivəsində beynəlxalq nəqliyyat layihələrinə qoşulmuş ölkələrdəndir. İranın əlverişli strateji mövqeyi onun bu baxımdan Çinin maraqlarında xüsusi yet tutmasına səbəb olmuşdur.

Çin İpək yolu iqtisadi kəməri layihəsi (quru yolu) çərçivəsində İranda nəqliyyat infrastrukturu layihələrinə on milyardlarla dollar kredit ayırmışdır. Onların birgə həyata keçirdiyi layihələr arasında İranda dəmir yolu xətlərinin tikintisi mühüm yer tutur. Lakin bəzi beynəlxalq layihələr çərçivəsində yükdaşımalar və marşrutlarının fəaliyyətində ləngimələr İranda narahatlıq doğurur. Lakin bir çox beynəlxalq nəqliyyat marşrutları, o cümlədən də "İpək Yolu İqtisadi Kəməri" layihəsi çərçivəsində marşrutların qeyri-kafi fəaliyyət göstərməsinin beynəlxalq münasibətlərdə baş verən proseslərlə əlaqəli müxtəlif səbəbləri var.

Qeyd edək ki, İran çoxvektorlu siyasət yeridərək, gələcəkdə Çinin təsiri altına düşməmək məqsədilə "Bir kəmər-bir yol" təşəbbüsü çərçivəsində layihələrlə yanaşı, digər ölkələrin aparıcı rol oynadığı nəqliyyat layihələrində də aktiv iştirak edir. Bunlardan biri də Rusiya və Hindistanın birgə layihəsi olan "Şimal-Cənub" nəqliyyat marşrutudur.

Çin isə bu layihəyə ehtiyatla yanaşır, çünki bu yol Çinin "Bir kəmər, bir yol" təşəbbüsünə rəqibdir. Buna baxmayaraq, Çin "Şimal-Cənub" layihəsinə Böyük İpək Yolu üçün əlavə marşrut kimi baxdığından, hələ də bu layihədə iştirak edir (9, 57). Lakin Çinin bu iştirakı formaldır. Qərbin Rusiyaya qarşı sanksiyaları da bu layihəyə Çinin marağını azaltmışdır. Həm də hazırda Türkiyənin təklif etdiyi beynəlxalq nəqliyyat layihələri Çini daha çox cəlb edir.

Deyilənlərdən əlavə, Qərbin Rusiya ilə ziddiyyətləri şəraitində Qərb ölkələri "Şərq-Qərb" marşrutunu müdafiə edirlər.

Türkiyənin təşəbbüsü olan Orta Dəhliz və ya Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu "Şərq-Qərb" layihəsinə daha yaxşı alternativdir. Orta Dəhliz Çinin nəqliyyat marşrutları baxımından Rusiyadan asılılığını azaldır, Cənub dəhlizində sanksiyaya məruz qalan İran coğrafiyasından daha az istifadə etmək və məhsullarını təhlükəsiz şəkildə Avropaya göndərmək baxımından strateji əhəmiyyət kəsb edir (10). Çin nəqliyyat siyasəti ilə yanaşı, Orta dəhlizə region ölkələri ilə iqtisadi və siyasi əlaqələri daha da gücləndirmək üçün bir vasitə kimi baxır. Bu kontekstdə Orta dəhlizi inkişaf etdirmək üçün səy göstərən Türkiyə ilə nəqliyyat sahəsində ikitərəfli əməkdaşlığa əhəmiyyət verir.

Lakin Cənubi Qafqazdakı münaqişələr, xüsusən də Ermənistanla Azərbaycan arasındakı müharibənin bitməsinə baxmayaraq həll olunmamış məsələlərin mövcudluğu, eləcə də İran və Türkiyənin (həmçinin bəzi böyük dövlətlərin) bu münaqişələrdə fəallığı Çinin hələlik bu layihəyə böyük məbləğdə vəsait yatırmasına mane olur.

Cənubi Qafqaz-Orta Asiya xətti də Türkiyə və Çinin əhəmiyyət verdiyi bir xəttdir və Zəngəzur dəhlizi bu xəttin mühüm hissələrindən biridir. Ümumiyyətlə, Orta Dəhliz Çinin nəqliyyat marşrutları baxımından Rusiyadan asılılığını azaldır, Cənub dəhlizində sanksiyaya məruz qalan İran coğrafiyasından daha az istifadə etmək və məhsullarını təhlükəsiz şəkildə Avropaya göndərmək baxımından strateji əhəmiyyət kəsb edir (10).

İranın narazılığının səbəbi isə layihənin onun həm siyasi, həm də iqtisadi maraqlarına zidd olmasıdır. Belə ki, Tehran Zəngəzur dəhlizinin İranla Ermənistan arasında nəqliyyat əlaqəsi ilə bağlı problemlər yaradacağından ehtiyat edir. Bundan əlavə, dəhlizin işə salınması İranın tranzit marşrutlarından əldə etdiyi külli miqdarda vəsaiti itirməsinə səbəb ola bilər.

**TƏDQİQAT METODU**

Məqalədə Çin və İran arasında iqtisadi münasibətlərin əsas istiqamətləri və bu sahədə ziddiyyətli məqamları, dövlətlərin məqsədlərini və Çinin İran siyasətində ziddiyyətli cəhətlərin səbəblərini müəyyənləşdirmək üçün əldə edilmiş mənbələr, elmi ədəbiyyat əsasında faktlar, müxtəlif fikirlər və mütəxəssis rəyləri müqayisə edilərək məntiqi nəticə çıxarılmışdır. İki dövlət arasında iqtisadi münasibətlərdə ziddiyyətli məqamlar və səbəbləri ayrı-ayrılıqda, hər bir problemlə əlaqəli şəkildə təhlil olunaraq, sonda bu ziddiyyətlərin səbəbləri, həmçinin, Çin-İran əməkdaşlığının gələcək perspektivləri ilə bağlı tam təsəvvür yaradılmışdır.

**NƏTİCƏ**

İranın mövqeyi və onun enerji resursları Çin üçün vacib olduğundan, Çinin bu ölkə ilə əməkdaşlıqdan imtina etmək niyyəti yoxdur. Lakin İrana qarşı sanksiyaları, onun məhdud imkanlarını və Yaxın Şərqdə yerləşməsini nəzərə alaraq, çox güman ki, Çin B planını işə salmışdır. İrandan fərqli olaraq, sanksiyalara məruz qalmayan digər Körfəz ölkələri Çin investisiyaları üçün sabit bazar olduğundan, Pekin İranla əməkdaşlığı davam etdirməklə paralel olaraq regionun digər ölkələri ilə də tərəfdaşlıq edir.

Çin İranı etibarlı tərəfdaş və enerji təchizatçısı kimi görür, çünki Çin və ABŞ arasında münasibətlərin pisləşəcəyi, Körfəz ölkələri Pekin və Vaşinqton arasında seçim etmək məcburiyyətində qalacağı təqdirdə İran Pekinə üstünlük verəcək. Buna görə də Pekin Tehran və Vaşinqton arasında balanslaşdırılmış siyasətini davam etdirir.

Deyilənləri ümumiləşdirsək, deyə bilərik ki, yuxarıda adları qeyd olunan dövlətlərin, xüsusilə Çinin davranışlarının məntiqini müəyyən edən amil dünyanın qeyri-sabit siyasi sistemində aktorların şəraitə uyğun, dəyişkən davranışıdır. Politoloq İ.Pankratenkonun sözlərilə desək, "İran rəhbərliyi açıq şəkildə Çinin xarici siyasətinin əsas prinsiplərini anlamır, Pekin üçün İranın əhəmiyyətini həddən artıq qiymətləndirir. İran Çindən real olmayanı – Tehranın ambisiyalarının nəzərə alınmasını tələb edir" (8).

**ABSTRACT**

**ECONOMIC COOPERATION BETWEEN CHINA AND IRAN.**
**CHINA'S CONTRADICTORY POSITION**

The article is devoted to the study of controversial aspects of economic cooperation between China and Iran in the context of China's "One Belt - One Road" initiative, the sanctions regime against Iran and Western pressure on China in connection with its relations with Iran, as well as the signing of the Comprehensive Cooperation Agreement between China and Iran. Iran. The research paper examines the goals of the parties to economic cooperation between China and Iran, China's ways of implementing a policy of balancing between Iran and the West and its regional allies, as well as contradictions in Sino-Iranian relations in this direction, as well as Sino-Iranian relations within the framework of the Shanghai Cooperation Organization and reasons for China's controversial activities in this direction. The cooperation of the two countries within the framework of the Chinese "One Belt, One Road" initiative, China's investments in transport projects in Iran and its interests in this area, their participation in projects that contradict each other's interests, in parallel with transport projects in which they jointly participate, are also considered. participate. Attention was drawn to the "Middle Corridor" project proposed by Turkey and contrary to the interests of Iran, as well as the attitude of

China and Iran to the “Middle Corridor” or “Zangezur Corridor” plan. The research topic is relevant from the point of view of reflecting the current situation in international relations in recent times. While the academic literature and media focus on rapprochement and friendship in Sino-Iranian relations, the article focuses on the contradictions between these two partners. Consideration of economic relations between two countries solely in the context of contradictions can be assessed as a different approach in scientific and historical research in this area.

**KEY WORDS: China, Iran, Comprehensive Cooperation Agreement, Shanghai Cooperation Organization**

**ƏDƏBİYYAT SİYAHISI:**

1.Alperen Ü. (2018). Reel Politik Düzlemde İran-Çin İlişkileri. İran Araştırmaları Merkezi (İRAM), Ankara, 18 s.

2.Китайский "дракон" запаздывает на Южный Кавказ. (22 ноября 2022), https://report.az/ru/vneshnyaya-politika/kitajskij-drakon-zapazdyvaet-na-yuzhnyj-kavkaz/

3.Holmquist E., Englund J. (2020). China and Iran – an unequal friendship Sweden, 44 pp.

4.China, With $400 Billion Iran Deal, Could Deepen Influence in Mideast, https://www.nytimes.com/2021/03/27/world/middleeast/china-iran-deal.html

5.Сенин К. (31 март, 2021). Срочный друг: Китай и Иран станут стратегическими партнерами на 25 лет. Газета Известия, https://iz.ru/1144341/kirill-senin/srochnyi-drug-kitai-i-iran-stanut-strategicheskimi-partnerami-na-25-let

6.Вахшитех А. (2021). Вопрос вступления Ирана в Шанхайскую организацию сотрудничества в политическом дискурсе и экспертных оценках, Постсоветские исследования, 4(7), 569-580

7.Михаил М. (2021). Китаю придется решать ближневосточную головоломку. Что мешает «историческому» сближению Пекина и Тегерана, 08 апреля, https://www.vedomosti.ru/opinion/articles/2021/04/08/865061-kitayu-reshat

8.Панкратенко И. (2015). Почему Китай избегает политики в отношениях с Ираном?. 18 февраля, https://regnum.ru/article/1896865

9.СЕМЕДОВ С., ШИЛОВА А. (2023). Проект МТК «Север – Юг»:проблемы и перспективы. В условиях санкций, ОБОЗРЕВАТЕЛЬ–OBSERVER, 2/2023, 52-61

10.Aslanlı A., Şerifli Y. (26.05.2021). Zengezur koridoru, Pekin-Londra hattı ve Türkiye’nin artan önemi, https://www.aa.com.tr/tr/analiz/zengezur-koridoru-pekin-londra-hatti-ve-turkiye-nin-artan-onemi/2254505

# SOVET İTTİFAQINDA SİYASİ REJİMİN XÜSUSİYYƏTLƏRİ

**XAQAN BALAYEV**
Bakı Mühəndislik Universiteti
Ümumi Fənlər Kafedrası
xabalayev@beu.edu.az
Xırdalan, Azərbaycan

**XÜLASƏ**

1922-ci ildə Sovet İttifaqı yaradıldı. 1924-cü ildə Sovet İttifaqının birinci konstitusiyası qəbul edildi. Sovet İttifaqı federalizm prinsipləri əsasında qurulmuşdi. Ölkə, “respublikalar ittifaqı” adlansa da, unitar dövlət kimi Moskvadan idarə olunurdu. Müttəfiq respublikaların müstəqilliyi formal xarakter daşıyır, ümumittifaq miqyasında bütün siyasi qərarların qəbul edilməsi Moskvanın iradəsindən asılı idi. Qərb ölkələrindən fərqli olaraq Sovet İttifaqının idarəetmə forması təkpartiyalı

sistemə əsaslanırdı. Ümumdünya siyasi tarixində ilk dəfə olaraq dövlətin idarə edilməsi ilə bağlı bütün əsas məsələlər partiyanın nəzarətinə verilmişdi. Bu da Sovet İttifaqının siyasi sistemini digər dövlətlərdən fərqləndirən və özünəməxsus idarəetmə səciyyəsi daşıyan əsas siyasi aspektlərdən biri idi. Əhalinin maksimal dərəcədə siyasiləşdirilməsinə, və onların siyasi cəhətdən tərbiyə edilməsi dövlətin xüsusi diqqət mərkəzində saxlanılırdı. Beləliklə də, forma və təyinatından asılı olmayaraq ölkədəki bütün təsisatlar – psevdodemokratik ümumölkə sovetlər piramidası, həmkarlar, gənclər və yaradıcılıq ittifaqları, uşaq və qadın təşkilatları və digər bütün təsisatlar Kommunist Partiyasının rəhbərliyi altında kor-koranə tabeçilik şəraitində fəaliyyət göstərirdilər. İnsan fəaliyyətinin heç bir sahəsi bu təşkilatların əhatə dairəsindən kənarda deyildi. Bu sxemdən kənarda heç nə və heç kim mövcud deyildi və ola bilməzdi.

**Açar sözlər: Sovet İttifaqı, Siyasi rejim, Kommunist Partiyası.**

**SUMMARY**

**CHARACTERISTICS OF THE POLITICAL REGIME IN THE SOVIET UNION**

In 1922, the Soviet Union was created. In 1924, the first constitution of the Soviet Union was adopted. The Soviet Union was founded on the principles of federalism. Although the country was called a "union of republics", it was governed from Moscow as a unitary state. The independence of the allied republics is of a formal nature, the adoption of all political decisions at the level of the Union depended on the will of Moscow. Unlike Western countries, the form of governance of the Soviet Union was based on a one-party system. For the first time in the political history of the world, all the main issues related to the administration of the state were given to the control of the party. This was one of the main political aspects that distinguished the political system of the Soviet Union from other states and had a unique management characteristic. The maximum politicization of the population and their political education was kept in the special focus of the state. Thus, regardless of their form and purpose, all institutions in the country - the pyramid of pseudo-democratic nationwide Soviets, trade unions, youth and creative unions, children's and women's organizations, and all other institutions - operated under the leadership of the Communist Party under conditions of blind subordination. No field of human activity was beyond the scope of these organizations. Nothing and no one existed outside of this scheme and could not exist.

**Key words: Soviet Union, Political regim, Communist party.**

**Giriş.**

Məlum olduğu kimi, Sovet İttifaqının siyasi rejiminin əsasını təkpartiyalı sistem – yeganə avtoritar hakim partiya olan Sovet İttifaqı Kommunist Partiyası təşkil edirdi. Stalin yazırdı ki, proletariat diktaturası partiyanın rəhbər göstərişlərindən, proletariatın kütləvi təşkilatları tərəfindən bu göstərişlərin yeridilməsindən və əhali tərəfindən onların həyata keçirilməsindən ibarətdir. (7, s.17). Stalin öz formuluna "proletariatın kütləvi təşkilatları" ifadəsindən sonra "dövlət və hökumət təsisatları" sözlərini də əlavə etsəydi, proletariat diktaturasının nədən ibarət olduğunu daha dolğun əks etdirmiş olardı. Kommunist partiyasının özünün də ali dövlət təsisatı funksiyasını yerinə yetirdiyi məlum məsələ idi. Ölkə, "respublikalar ittifaqı" adlansa da, unitar dövlət kimi Moskvadan idarə olunurdu. Burada bir məqama da xüsusi diqqət yetirmək lazımdır. Dövlətin hansı əsaslarla qurulması məsələsində sovet rəhbərləri arasında yekdil fikir yox idi. Sovet İttifaqı təşkil edilərkən bu məsələ ilə bağlı müxtəlif mövqelər ortaya qoyulmuş, ciddi mübahisələr getmişdir. Vladimir Lenin Rusiya tərəfindən işğal edilmiş xalqlara formal da olsa müstəqillik vermək istəyirdi. Yəni müttəfiq respublika statusunda onların Sovet İttifaqının tərkibinə daxil edilməsini istəyirdi. Lakin bu məsələ də onun ciddi rəqibləri də var idi. Onlardan biri İosif Stalin idi. O Leninin yaxın tərəfdaşlarından olmaqla yanaşı, inqilab illərində də xüsusi xidmətlər göstərən nüfuzlu bolşeviklərdən idi. İosif Stalin Sovet Rusiyasında milli məsələlər üzrə komissar da işləmişdi. Onun bu məsələ ilə bağlı mövqeyi ondan ibarət idi ki, Sovet İttifaqının tərkibinə daxil olan xalqlara muxtariyyət statusu verilsin. Lakin Lenin bu məsələ ilə bağlı qəti mövqe nümayiş etdirmiş, dövlətin ərazi quruluşu məsələləri ilə bağlı federalizm prinsiplərini əsaslı şəkildə müdafiə etmişdir. Leninin partiyada və ölkədə nüfuzu nəticə etibarilə onun siyasi mövqeyinin qəbul edilməsi ilə nəticələnmiş və Sovet İttifaqı federalist əsaslarla qurulmuş və süqutuna qədər də bu formada qalmışdır. Burada bir məqamı da xüsusi qeyd etmək lazımdır ki, Sovet İttifaqının tərkibinə daxil olan dövlətlərə formal da olsa müstəqilliyin verilməsində ümumdünya ictimai rəyi də nəzərə alınmışdı. Dünyada ilk fəhlə-kəndli hökumətinin qurulduğunu bəyan edən

bolşeviklər bu məqamdan planetar səviyyə də təbliğat vasitəsi kimi yararlanmaq istəyir, beynəlxalq müstəvidə sosialist inqilabının həyata keçirilməsinə çalışırdılar. Məhz bunun üçün federalizm müdafiə edilir, dünya xalqlarına göstərməyə çalışırdılar ki, Sovet İttifaqı onun tərkibinə daxil olan xalqların bərabərhüquqlu və könüllü birləşməsi fonunda yaradılmışdır.

Beləliklə də, forma və təyinatından asılı olmayaraq ölkədəki bütün təsisatlar – psevdodemokratik ümumölkə sovetlər piramidası, həmkarlar, gənclər və yaradıcılıq ittifaqları, uşaq və qadın təşkilatları və digər bütün təsisatlar Kommunist Partiyasının rəhbərliyi altında kor-koranə tabeçilik şəraitində fəaliyyət göstərirdilər. İnsan fəaliyyətinin heç bir sahəsi bu təşkilatların əhatə dairəsindən kənarda deyildi. Bu sxemdən kənarda heç nə və heç kim mövcud deyildi və ola bilməzdi.

Sovet İttifaqında siyasi rejimin mahiyyəti. Sovet İttifaqının idarə edilməsində kütləvi təşkilatlar önəmli rol oynayırdı. Kütləvi təşkilatlar hamını öz əhatə dairəsinə salaraq siyasiləşdirirdi. Ölkənin iki ən iri kütləvi təşkilatı olan SSRİ Həmkarlar İttifaqlarının və ÜİLKGİ-nin nizamnamələrində onların Kommunist Partiyasının rəhbərliyi altında işləmələri haqqında müddəalar vardı (4, s.7; 2, s.3). Həmkarlar İttifaqları öz nümayəndələri vasitəsilə Sov.İKP.MK-dan tutmuş partiya komitələrinədək, Ali Sovetdən başlayaraq yerli hakimiyyət orqanlarına qədər bütün hakimiyyət və idarəetmə pillələrində təmsil olunurdular. Partiya-dövlət strukturlarının nümayəndələri də öz növbəsində bütün səviyyələrdə həmkarlar ittifaqları rəhbərliyinin tərkibinə daxil idilər. Ölkənin həyatı üçün mühüm qərarlar Sov.İKP MK, SSRİ Nazirlər Soveti və ÜİHİMŞ (bəzi hallarda həm də ÜİLKGİ MK) tərəfindən müştərək qəbul edilirdi. Hakimiyyət və kütləvi təşkilatların bir-birinə bu cür calanması gündəlik həyatda da müxtəlif formalarda təzahür edirdi. ÜİHİMŞ Siyasi Büronun tapşırıqları əsasında işləyir, aşağı həmkarlar ittifaqları da müvafiq partiya orqanlarının tam tabeliyində idilər. Öz nizamnaməsinə əsasən partiyanın fəal köməkçisi və ehtiyat qüvvəsi olan ÜİLKGİ-nin vəzifəsi bütün üzvlərini Sov.İKP ətrafında birləşdirməkdən, onları Sov.İKP Proqramının, qərar və göstərişlərinin yerinə yetirilməsinə səfərbər etməkdən ibarət idi (2, s. 3). İbtidai sininf şagirdlərinin oktyabryat, onlardan yaşlıların pioner təşkilatları fəaliyyət göstərirdi.

Beləliklə də, ictimai və dövlət təsisatlarının hamısı partiyanın rəhbərliyi altında bir məqsəd - əhalini, ictimai həyatın bütün sahələrini maksimum siyasiləşdirmək, hər kəsin hər bir hərəkətini siyasi etmək məqsədi güdürdü. Hətta, insan həyatının qeyri-ictimai sferalarının siyasətə çulğaşması, cəmiyyət həyatının qeyri-siyasi təzahürlərində belə əhalinin siyasi problemlərə bağlanması və beləliklə də ictimai şüurun məcburi siyasiləşdirilməsi prosesi gedirdi.

Məhz siyasi faktorlar sistemin bütünlükdə təsir qüvvəsini təmin edirdi. Əslində, totalitar dövlətin bütün fəaliyyəti – siyasi, iqtisadi, ideoloji, sosial fəaliyyəti məhz buna əsaslanırdı.

Əhalini bütünlükdə bilavasitə siyasi funksiyanın daşıyıcısı etməkdən ötrü rejimin gündəlik fəaliyyətdə olan müvafiq mexanizmindən əlavə planlaşdırılmış və məcburi olan tədbirlər sistemi mövcud idi. Sov.İKP MK-nın hər bir plenumunun, Sov.İKP-nın qurultaylarının qərarları əmək, təhsil, elm və s. müəssisələrin kollektivlərində müzakirə olunurdu, komsomol və partiya maarifi sistemi fəaliyyət göstərirdi, Lenin dərsləri keçirilirdi və s.

Sovet cəmiyyətinin tədqiqatçılarından olan Д.В. Прокудин və Б.М.Меерсон birgə yazdıqları "Totalitarizm: təzahür və mahiyyət" adlı əsərdə sovet cəmiyyətindəki yuxarıda haqqında bəhs etdiyimiz total siyasiləşdirmənin çox aydın və sadə izahını verirlər. Onlar yazırlar: "Totalitar cəmiyyətdə hər bir hərəkət mütləq siyasi məna daşımalıdır. Zavodda fəhlə sadəcə dəzgah arxasında dayanmır, kəndli sadəcə torpağı becərmir, alim formullar üzərində yalnız elmi marağa görə baş sındırmır, musiqiçi sadəcə ifa etmir, yazıçı sadəcə roman yazmır.....Onların hamısı, hər şeydən əvvəl, düşmənə çatmaq və onu ötmək üçün mühüm siyasi iş görürlər. Hər kəs öz cəbhəsində (istehsalat, elm, idman və s.) imkanı daxilində mübarizə aparır. Əhali bu minvalla siyasətə və onu müəyyənləşdirən hakimiyyətə bağlanır" (6, s.117).

Sovet İttifaqında qeyri-konvensial siyasi iştirak istisna olunurdu. Etiraz və həmrəylik mitinqləri imperializmə və onun qurbanlarına ünvanlana bilərdi ("Amerika, Vyetnamdan əlini çək!", "Kuba, biz sənin ləyik" və s.).

Sovet cəmiyyətinin maksimum siyasiləşdirilməsinə baxmayaraq, dayaqlarının daim möhkəmləndirilməsi üçün Sov. İKP MK hər neçə ildən bir zəhmətkeşlərin siyasi tərbiyəsinin gücləndirilməsi istiqamətində qərarlar qəbul edirdi. Moskvanın nəzərincə ölkədə gedən siyasi proseslərin düzgün təbliğ və təşviq edilməsi baxımından sovet insanlarının buna xüsusi ehtiyacı olmalı idi.

Sovet İttifaqının siyasi rejimini digər ölkələrin siyasi rejimlərindən fərqləndirən əsas əlamətlərdən biri də sığınacaq hüququnun verilməsi məsələsi ilə bağlı idi. "Sığınacaq hüququ"nun beynəlxalq hüquq təsisatı (institutu) kimi meydana çıxması burjua inqilabları dövrünə aiddir (ilk dəfə 1789-cu ildə Fransa burjua inqilabı zamanı elan olunmuşdur) və adətən siyasi mühacirlərə şamil edilir. Mahiyyəti etibarilə hər hansı bir dövlətin siyasi, yaxud elmi fəaliyyətinə görə təqib edilən əcnəbiləri öz ərazisinə buraxmaq və orada olmasına icazə vermək hüququdur. Xarici vətəndaşı öz ərazisinə buraxmaq, yəni sığınacaq hüququ vermək məsələsini bu və ya digər dövlət öz dövlətdaxili aktlarına (xüsusi qanun, konstitusiya) əsasən həll etmək hüququna və səlahiyyətinə malikdir. Bu mənada siyasi sığınacaq hüququnun icrası vətəndaşa yox, dövlətə məxsusdur. Dövlət öz suverenliyinə əsaslanaraq, beynəlxalq və daxili hüquqa uyğun olaraq sığınacaq almaq haqqında müraciət edən şəxsin xahişini təmin, yaxud rədd edir.

"İnsan hüquqları haqqında ümumi bəyannamə" nin 14-cü maddəsinin 1-ci bəndi ilə sığınacaq hüququ qismən vətəndaşa da aid edilmişsə də ("Hər bir insan təqibdən yaxa qurtarmaq üçün başqa ölkələrdə sığınacaq axtarmaq və bu sığınacaqdan istifadə etmək hüququna malikdir" (5, s.11) ), təcrübədə bu, elə bir əhəmiyyət kəsb etməmişdir. SSRİ, ümumiyyətlə, bəyannaməni imzalamamışdı (imzalamayan digər dövlətlər Polşa, Çexoslovakiya, Yuqoslaviya, Səudiyyə Ərəbistanı və Cənubi Afrika Respublikası idi). BMT Baş Məclisinin 1967-ci ildə qəbul etdiyi sığınacaq haqqında xüsusi bəyannaməyə uyğun olaraq sığınacaq vermək məsələsini dövlət özü həll edir.

Sovet dövlətində sığınacaq hüququ ilk dəfə Ümumrusiya Mərkəzi İcraiyyə Komitəsinin 28 mart 1918-ci il tarixli dekreti ilə elan olunmuş, həmin il iyulun 10-da 5-ci Ümumrusiya Sovetlər qurultayında qəbul olunmuş RSFSR Konstitusiyasında təsbit edilmişdi. 1924-cü il yanvarın 31-də qəbul edilmiş ilk SSRİ Konstitusiyasından etibarən sığınacaq hüququ bütün sonrakı konstitusiyalarda da, maddə sırası dəyişməklə və cüzi məna, dil-üslub redaktəsinə məruz qalmaqla, təsbit olunmuşdur.

1946-cı ildə nəşr olunmuş SSRİ Konstitusiyasının 129-cu maddəsi bəyan edirdi: "SSRİ, zəhmətkeşlərin mənafeyini müdafiə etdikləri üçün, yaxud elmi fəaliyyətləri üçün və ya milli-azadlıq uğrunda apardıqları mübarizə üçün təqib olunan əcnəbi vətəndaşlara sığınacaq hüququ verir" (3, s.25). Azərbaycan SSR-in də bütün konstitusiyalarına cüzi dəyişikliklər və maddə sırasının dəyişməsi ilə müvafiq maddə daxil edilmişdir. Konstitusiyanın 1946-cı il nəşrində 136-cı maddə də təsbit olunmuşdu ki, "Azərbaycan SSR, zəhmətkeşlərin mənafeyini müdafiə etdiklərinə və ya elmi fəaliyyətlərinə, yaxud milli qurtuluş uğrunda mübarizə etdiklərinə görə təqib olunan əcnəbi vətəndaşlara sığınma hüququ verir" (1, s.29). Maddə formal xarakter daşıyırdı, mühacirlərlə bağlı ən kiçik məsələləri Bakı Moskvanın rəyi olmadan həll etmək səlahiyyətinə malik deyildi.

Tədqiqat metodu. Mövzu araşdırılarkən müxtəlif siyasi və tarixi ədəbiyyatlardan istifadə edilmişdir. Tədqiq edilən mövzunun tam elmi mənzərəsini yaratmaq üçün siyasi təhlillərdən də geniş istifadə olunmuş, Sovet İttifaqında siyasi rejimin xüsusiyyətlərinin əsas özəllikləri göstərilmişdir.

**Nəticə.**

Politoloq Y.D.Şevçenko "Sovet və postsovet Rusiyasının siyasi mədəniyyəti: institutsional amillərin təsiri" adlı əsərində siyasətə və hakimiyyətə bağlanmağın mexanizmini açıqlayır. O yazır: "Sovet vətəndaşlarını siyasi sistemə uyğunlaşmağa hansı mexanizmlər məcbur edirdi? Sovet siyasi sisteminin institutsional dizaynı dövlətin vətəndaş üzərində hakim mövqeyinə əsaslanırdı ki, bu da həm ideoloji ritorikada, həm də hakimiyyətin siyasi fəaliyyətində əksini tapırdı. Şəxsiyyətin rifahı birbaşa siyasi loyallıqdan asılı idi. Belə şəraitdə sovet vətəndaşı rasional düşünə bilən aktyor kimi öz siyasi görüşlərini sistemə uyğunlaşdırmaq məcburiyyətində idi. Loyallıq ən uduşlu strategiya idi....Digər tərəfdən, sovet siyasi sistemi kollektivizmi həyat fəaliyyətinin forması kimi fəal surətdə tətbiq edirdi. Sistemin kollektivdə yer tutan hər bir üzvü göz qabağında idi və beləliklə də onun nə dərəcədə fəal olması dərhal nəzərə çarpırdı. Siyasi iştirakdan yayınmaq diqqəti cəlb etməyə bilməzdi. Sistemə loyallığın nümayiş etdirilməsi vasitəsi kimi fəallıq mükafatlandırılmaq şansına malik idi və bu, həmin düşüncənin vətəndaşların şüurunda möhkəm yer tutmasına səbəb olurdu. Bundan əlavə, siyasi həyatda iştirak üçün əlavə stimul olan repressiya təhlükəsini də unutmaq olmazdı" (7, s.98). Beləliklə Sovet İttifaqının siyasi rejimi özünəməxsus cəhətləri ilə fərqlənmişdir.

**İstifadə Edilmiş Ədəbiyyat:**

1.Azərbaycan Sovet Sosialist Respublikasının Konstitusiyası (əsas qanunu). Bakı: Azərnəşr, 1946, 36 s.

2.Ümumittifaq Lenin Kommunist Gənclər İttifaqının Nizamnaməsi. Bakı: Gənclik, 1974, 32 s.

3.Sovet Sosialist Respublikaları İttifaqının Konstitusiyası (Əsas Qanunu). Bakı: Azərnəşr, 1946, 28 s.

4.SSRİ Həmkarlar İttifaqlarının Nizamnaməsi. Bakı: Azərnəşr, 1983, 56 s.

5.Всеобщая Декларация Прав Человека. Издание Департамента общественной информации ООН, 20 с.

6.Прокудин Д.В., Меерсон Б.М. Тоталитаризм: явление и сущность. www.sch57. Msk.ru

7.Шевченко Ю.Д. Политическая культура советской и постсоветской России: воздействие институционалных факторов. www.Polithub.spb.ru mag3.

# FRANSA QƏDİMDƏ

**ŞƏFA ƏBDÜRRƏHİMOVA**
Azərbaycan Dillər Universiteti
Beynəlxalq Münasibətlər və Regionşünaslıq
chafouniya85@yahoo.fr
BAKI, AZƏRBAYCAN

**XÜLASƏ**

Tədqiqat işində Qərbi Avropanın inkişaf etmiş dövlətlərindən biri olan Fransanın qədim insanların yaşayış məskəni olmasından bəhs olunur. Arxeoloji qazıntılar zamanı eradan 900 000 il bundan əvvələ aid ilk insan izlərinin tapılması buranın qədim yaşayış məskəni olmasını bir daha sübut edir. Qədim insanların yaşayışı və məşğuliyyət növlərindən bəhs edən müəllif e.ə. I minilliyin əvvəllərində bu ərazilərə keltlərin hücum etməsi, müəyyən hissəsinin buranı məskən seçərək məskunlaşması və qall adlandırılması haqqında məlumat verir. Bu ərazilərdə məskunlaşan qallar yalnız bir etnik tərkibdən ibarət deyildilər, onlar çoxsaylı müxtəlif xalqlara bölünmüşdülər, heç biri biri-birindən asılı deyildilər, buna görə də, aralarında daim münaqişələr olurdu. Məqalədə həmçinin bu ərazilərdə müstəqil xalqların formalaşması və ümumi sivilizasiyanın yaranması, Yuli Sezarın istilaçı yürüşləri və romalıların qələbələri, bizim eranın əvvəllərində yeni bir xalqın – qallo-romalıların meydana gəlməsi haqqında araşdırmalar təqdim olunur. Roma sivilizasiyanın Qalliyaya müsbət təsiri həyatın bütün sferalarında özünü göstərir, bu dövrə uyğun yeni, inkişaf etmiş şəhərlər meydana gəlirdi. Xronoloji ardıcıllığı izləyən müəllif ardınca eramızın II-III əsrlərində yeni tayfaların – german tayfalarının ölkə ərazisinə kütləvi basqınlarından, ölkənin talan edilməsindən və nəhayət, onların bu ərazilərdə məskunlaşmasından bəhs edir. Tədqiqat işi Qalliya-Romanın möhkəmlənməsi, hazırki Fransa ərazisinin də daxil olduğu ərazilərdə mərkəzləşmiş dövlətin yaranması istiqamətində irəliləyişlərin labüdləşməsi ilə yekunlaşır.

**AÇAR SÖZLƏR: Fransa, qədim, Qalliya**

**ABSTRACT**

In the research work, it is mentioned that France, one of the developed countries of Western Europe, is the home of ancient people. The discovery of the first human traces dating back to 900 000 years ago during archeological excavations once again proves that this place was an ancient settlement. The author, who talks about the types of living and occupations of ancient people, B.C. At the beginning of the 1st millennium, it gives information about the attack of Celts on these areas, the settlement of a certain part of them and the name of Gaul. The Gauls who inhabited these areas did not consist of only one ethnic group, they were divided into many different peoples, none of them

dependent on each other, therefore, there were constant conflicts between them. The article also presents studies on the formation of independent nations and the emergence of a common civilization in these areas, the invasion campaigns of Julius Caesar and the victories of the Romans, and the emergence of a new nation - the Gallo-Romans - at the beginning of our era. The positive influence of the Roman civilization on Gaul is manifested in all spheres of life, new, developed cities were formed according to this period. Following the chronological sequence, the author then talks about the mass raids of new tribes - Germanic tribes on the territory of the country, the plundering of the country and finally their settlement in these areas in the II-III centuries of our era. The study concludes with the consolidation of Gallo-Roman, and progress towards the establishment of a centralized state in areas including present-day France.

**KEY WORDS: France, ancient, Gaul**

## GİRİŞ

Qədim dövr dedikdə, adətən, bəşər övladının yaranması ilə ilk yazılı sənədlərin meydana çıxması arasındakı dövr nəzərdə tutulur. Müasir ölkələrin qədim tarixinin öyrənilməsi, arxeoloji mənbələrə söykənərək ilk insanın meydana gəlməsi və inkişafı tarixinin araşdırılması, milli etnogenezinin formalaşması mərhələlərinin tədqiq edilməsi insanları maraqlandırır və bu istiqamətdə müxtəlif dillərdə araşdırmalar etməyə, araşdırmalarını sənədləşdirməyə onları sövq edir. Qədim və zəngin tarixi ilə elm adamlarının, mədəniyyət, incəsənət, ədəbiyyat insanlarının diqqətini çəkən ölkələrdən biri də Qərbi Avropanın inkişaf etmiş dövlətlərindən biri olan Fransadır.

Hazırki Fransanın yerləşdiyi torpaqlarda qədim insanların yaşaması ilə əlaqəli ilk izlərə 900 000 il bundan əvvəl rast gəlinmişdir: bunlar Alp Maritimdə yerləşən Rokbrun-Kap-Martəndəki (Roquebrune-Cap Martin) mağarada aşkar olunmuş əmək alətləridir. Bura yaxın Terra Amata landşaftında yerləşən Nitsada 400 000 il əvvələ aid daxma, o cümlədən ocaq izlərinə rast gəlinmişdir (Mathieu, 1996: s.10).

Fransada müasir insanın əcdadı sayılan Homo sapiens təxminən eradan 35000 il əvvəl yaşayıb. Balta, bıçaq və oxla silahlanmış bu insan maral və mamont ovlayırdı. Sonralar e.ə. 10000-8000-ci ildə iqlimin istiləşməsi ilə insanlar əvvəllər sığındıqları mağaralardan çıxırlar. Flora və fauna da dəyişilir və beləliklə, qədim insanlar yavaş-yavaş heyvanları əhliləşdirməyə və torpağı becərməyə başlayırlar. E.ə. 5000-ci ildən etibarən onlar artıq dənli bitkilər becərir, itləri və qoyunları, daha sonra isə öküz və donuzları əhliləşdirir, saxsı qablar istehsal edirlər.

E.ə. 5000-ci ildən etibarən qədim insanlar dolmen (daş dövrünə məxsus tava daşlarından ibarət sərdabə) və menirlər (sal daşlardan tikilmiş abidə) tikirdilər. Sonralar isə onlar misdən, daha sonra qızıl, tunc və dəmirdən istifadə etməyi öyrənirlər. Bu metalların bəzilərini əldə etmək üçün onlar İspaniya, İngiltərə yaxud Mərkəzi Avropa xalqları ilə ticarət əlaqələri qururdular.

E.ə. 2000-ci ildən etibarən hazırki Fransa ərazisində yaşayan insan atdan minik atı yaxud qoşqu heyvanı kimi istifadə etməyə başlayır. Bundan başqa onlar arabalar, xışlar və ibtidai kotan növləri düzəldirdilər (Monnerie, 1996: s.7).

1. Keltlərin gəlişi, qalların istilaları (e.ə. X-III əsrlər)

Bohema (sərsəri həyat keçirən ziyalılar, aktyorlar, şairlər və s.) əsilli keltlər (yunanlar onları belə adlandırırdılar) hazırki Fransa torpaqlarına e.ə. I minilliyin başlanğıcında gəliblər (Mathieu, 1996: s.13). Onlar burada yaşayan əhali ilə qaynayıb-qarışır və tədricən onlara ağalıq etməyə başlayırlar.

E.ə. VIII – V əsrlərdə Fransada dəmir mədəniyyəti inkişaf edirdi. Aralıq dənizi mədəniyyətinə məxsus xalqlarla, o cümlədən etrusk (İtaliya) və yunanlarla (təx. e.ə. 600-cü ildə Fose dənizçiləri Massalianın, gələcək Marselin əsasını qoyurlar.) əlaqələr genişlənir. Beləliklə, döyülmüş dəmirdən hazırlanmış silahlar, qızıl zinət əşyaları, ikitəkərli araba, digər yeni kənd təsərrüfatı avadanlıqları, o cümlədən səpələnmiş halda yerləşən evlərdən ibarət yeni yaşayış massivi – kənd meydana gəlir.

Kelt döyüşçü sıralarını təşkil edən könüllü və yaxşı silahlanmış cəngavərlər Alp dağlarını keçərək (e.ə. V əsr) Mərkəzi İtaliyanı viran etdilər, sonra isə Romanı qarət etdilər (e.ə. 385). Ardınca Dunay çayı boyunca qorxmadan Yunanıstana və Kiçik Asiyaya doğru irəlilədilər və onların bir hissəsi buranı özlərinə məskən seçdilər (e.ə. III əsr). Bəziləri isə Kiçik Asiya, Misir, Karfagendə muzdlulara çevrildilər. E.ə. III əsrdə hazırki Cənubi Almaniya, Belçika, Fransa və Şimali İtaliya ərazilərində yaşayan keltləri bura gələn romalılar qall adlandırdılar (onların sitayiş etdikləri heyvan olan xoruz latın dilində gallus adlanırdı. (Mathieu, 1996: s.15)). Beləliklə də, Qalliyanı Sizalpin (Alp dağlarından

bu tərəf, yəni cənub tərəfində olan, İtaliyanın şimalı) və Transalpin (Alp dağlarının o tərəfində olan - Fransa, Belçika, Reyn çayının sol sahili) olmaqla iki qola ayırdılar.

Qallar yalnız bir etnik tərkibdən ibarət deyildilər, onlar çoxsaylı müxtəlif xalqlara bölünmüşdülər. Heç biri biri-birindən asılı deyildilər, buna görə də aralarında daim münaqişələr olurdu. Qall cəmiyyəti üç qrupdan təşkil olunmuşdu: əhalini müdafiə edən və hərbi əməliyyatlara başçılıq edən aristokrat döyüşçülər, azad adamlar və qullar (adətən müharibələr zamanı əsir götürülənlər).

Qallar taxta yaxud küləş və gildən hazırlanmış köhnə daxmalarda yaşayırdılar. Müharibə zamanı əhali yüksəklikdə yerləşən istehkam qalalarda yaxud da adada (Lütesiyada, indiki Parisdə) daldalanırdılar. Qala divarları ilə əhatə olunmuş bu geniş şəhər regional iqtisadi mərkəz hesab olunurdu. Burada səcdəgahlar da var idi və bura sənətkarların daimi sığınacaq yerinə çevrilmişdi.

Qalliya daim inkişaf edən bir ölkə idi. Buranın sakinləri taxılbiçən maşınlar haqqında məlumatlı idilər, gübrələrdən və dəmir gavahınlı kotandan istifadə edir, əti uzun müddət saxlaya bilmək üçün duzlayır və pivə istehsal edirdilər. Mahir sənətkarlar rəngli parçalar, sabun, şüşə, dəryazlar, dəmirlə əhatələnmiş taxta çəlləklər, mətbəx əşyaları, dəmir və tunc silahlar, bijuteriya istehsal edirdilər.

Ruhun ölməzliyinə inanan qallar müxtəlif çoxsaylı allahlara sitayiş edirdilər (Kernun yaxud Sernun, Ezus, Taranis və digərləri) və onların fəvvarələrdə yaxud meşələrdə yaşadıqlarını güman edirdilər. Druid adlanan kahinlər eyni zamanda tibbi, siyasi, məhkəmə və təhsil sahəsində də fəaliyyət göstərirdilər. İldə bir dəfə onlar Orlean yaxınlığındakı Karnut meşəsində toplaşırdılar.

2. Roma istilası və Yuli Sezarın qələbələri (e.ə. III-I əsrlər)

E.ə. III əsrdə romalıların qallar üzərinə hücumu başladı. Onlar e.ə. 222-ci ildə Milanı tutdular. Bir əsr sonra Massaliada yaradılmış yunan koloniyasını qorumaq və İtaliyadan İspaniyaya getməyə şərait yaradan yolu salmaq üçün onlar Qalliyanın cənubunu işğal edərək Provənsianın əsasını qoydular.

E.ə. 58-ci ildə Roma generalı Yuli Sezar iki qall tayfası – eduanlar və elvetlər – arasındakı mübahisəni bəhanə edərək öz ordusu ilə şimala tərəf irəlilədi və sıx meşəli Qalliyaya daxil oldu. Arasıkəsilməz qalibiyyətlərin nəticəsində o, ölkənin işğalını labüdləşdirir və Elzasa qədər irəliləyir. E.ə. 57-ci ildə roma legionerləri artıq Qalliyanın üçdə ikisini nəzarət altına almışdılar (Mustafazadə, 2009: s.248-249).

İlk vaxtlarda qallar işğalçılara qarşı mübarizə aparmaq əzmində deyildilər. Lakin buna baxmayaraq e.ə. 52-ci ildə Versənjetoriks adlı gənc başçı birgə mübarizə aparmaqçün tayfaları yola gətirərək öz hakimiyyəti altında birləşdirməyə müvəffəq oldu. Həmin vaxtdan başlayaraq qallar yandırılmış torpaq taktikasından istifadə etdilər. Onlar Jerqovidə qələbə çaldılar və roma qoşunlarını cənuba doğru geri çəkilməyə məcbur etdilər.

Lakin Versənjetoriks və onun ordusu Alezia istehkam qalasına sığınmağa məcbur oldular. Sezar şəhəri mühasirəyə aldı və qalaya gedən bütün yolları tutdu. Qall ordusu aclıqdan əziyyət çəkir, gələn bütün koməklər isə romalılar tərəfindən dəf edilirdi. Versənjetoriks geri çəkilməyə məcbur oldu: bununla da müqavimət hərəkatı sona yetdi. 8 milyon əhalisi olan Qalliya romalıların nəzarəti altına keçdi.

Sezarın qələbəsindən sonra Qalliya Roma imperiyasının tərkibinə daxil oldu və dörd əyalətə parçalandı: Akvitaniya, Belçika, Lionnez və Narbonnez (Mathieu, 1996: s.20). Bununla belə Qalliya Romaya vergi ödəyirdi, legionerlər Roma ərazisində sakitliyin bərqərar olması üçün Reyn sahilində keşik çəkirdilər. Hərdən üsyanlar baş verirdi, lakin heç bir nəticə vermirdi. Getdikcə Qalliya əhalisi qaynayıb qarışdı və yeni bir xalq: qallo-romalılar meydana gəldi.

Çoxsaylı şəhərlərin əsası qoyuldu. Şəhərlərə daşla döşənmiş və novalçalarla təchiz olunmuş mərkəzi meydan olan forum gözəllik verirdi, bu şəhərlər böyük yol şəbəkəsi ilə bir-birinə bağlı idilər. Bu şəhərlərdə əzəmətli abidələr ucaldılmışdı: arenalar (Arl, Nim), teatrlar (Otən, Oranj), ümumi hamamlar (Lütesiya), zəfər tağları, əzəmətli qapılar, gümbəzlər. E.ə. 43-cü ildə əsası qoyulmuş Luqdonum (Lion) şəhəri ölkənin paytaxtı oldu (Monnerie, 1996: s.12).

Torpaqlar Roma ictimai mülkünə daxil oldu, ancaq torpaq vergisi ödəyərək qallar onlardan istifadə edə bilərdilər. Kəndlərdə çoxsaylı sahibkarlıqlar, villalar, yaradıldı və onlar torpaqları qiymətləndirmə ilə məşğul idilər. Qalliya üçün yeni çiçəklənmə dövrü başladı, belə ki, buradan taxıl, şərab, kolbasa məmulatları, saxsı qablar, metal əşyalar, başlıqlı (kapuşon) paltolar ixrac olunurdu.

Zadəganlar, tacirlər latınca danışmağı, gənc aristokratlar isə yunan-roma hərflərini öyrənirdilər. Roma düşüncə tərzi və dəyərlərinin təsiri altında intellektual elita formalaşırdı. Qalların allahları roma məbədinin səcdəgahları ilə əvəz olundu.

3. Germanların basqınları (II-III əsrlər)

Roma imperiyasının yaranması ölkənin hüdudlarında yaşayan xalqların canlanmasına səbəb oldu. Skandinaviyadan gələn, yaxşı silahlanmış hərbçi kəndlilərdən ibarət tayfalar I əsrdə Germaniyada məskunlaşdılar: bunlar burqundlar, qotlar və vandallar idilər. İmperiyanı qorumaq üçün Vespazian və onun oğulları Şərq sərhəddində uzun çəpər sistemi olan limlər (keçidlər), xəndəklər, təxminən 100 000 nəfər tərəfindən mühafizə olunan düşərgələr və istehkamlar tikdirdilər.

II əsrdə Roma imperiyası bir-birinin ardınca uğursuzluqlara düçar oldu. Hərbçilərə limlərin (keçidləri) mühafizəsi tapşırıldığından onlar buradakı qarşıdurmalarda iştirak edirdilər, belə olduğu halda Qalliya sərhədləri hərdənbir tərksilah edilirdi. Tayfalar istehkamlarla mühafizə olunan xətti bir dəfə keçməklə sonralar ölkə ərazisinə daxil olmağa nail oldular. Beləliklə, Qalliya III əsrdə çoxsaylı hücumlara məruz qaldı, şəhərləri talan edildi, yandırıldı. Yeni german xalqları olan alamanlar və franklar hətta İspaniyaya kimi gedib çıxmışdılar.

Sezarların hakimiyyətdən devrilməsinin şərəfinə III əsrdə qalların müvəqqəti Roma imperiyası təşkil olundu. Lakin Romada hakimiyyəti imperator Diokletiən ələ keçirdi. IV əsrdə isə Qalliya son sakitlik dövrünü yaşayırdı, belə ki, ölkədə xristianlıq dini yayıldı. Legionerlər sərhədlərdə öz yerlərini tutdular, lakin hakimiyyət german xalqlarına imperiya daxilində məskunlaşmağa icazə verməyə məcbur oldu.

V əsrdə german xalqları irəli doğru axışmağa başladılar. 406-cı il dekabrın 31-i gecə hunların təzyiqlərinə məruz qalmış çoxsaylı barbarlar öz ailələri, silahları və veşləri ilə limləri (keçidləri) keçərək ölkə ərazisinə daxil oldular (Mustafazadə, 2009: s.393-411). Belə olduğu halda imperiyaya daxil olan xırda torpaqlar Roma hökmranlığından çıxaraq burqund, vestqot və digər tayfaların xırda rəhbərlərinin hakimiyyəti altına keçdi.

Sonralar hunların məşhur rəhbəri olan Atilla da öz növbəsində Reyni keçərək, 451-ci ildə Qalliyaya daxil oldu (Abbasbəyli, Yusifzadə, 2009: s.39-41). O, Lütesiyaya hücum etməkdən imtina etdi, çünki müqəddəs Jeneviev əhalini müqavimət göstərməyə çağırırdı. Sonra o, Troya yaxınlığındakı Kampüs Moriaküs döyüşündə "romalıların axırıncı nümayəndəsi" olan Aetiüsün rəhbərliyi altında germanlarla birləşmiş Roma qoşunları tərəfindən məğlubiyyətə uğradıldı.

Lakin az bir vaxtdan sonra Aetiüs onun şöhrətinə paxıllıq edən Roma imperatoru III Valentin tərəfindən edam edildi. Hakimiyyətin axırıncı nümayəndələrindən birinin öldürülməsi Qalliya ərazisində məskunlaşmış barbar rəhbərlərinin narazılığına səbəb oldu. İmperiyanın bünövrəsi laxladı, ölkə sarsıldı.

486-cı ildə Suassonda frankların rəhbəri Xlodviq Siaqriusun rəhbərlik etdiyi sonuncu qallo-romalıların axırına çıxdı. Bu döyüş Qalliya ərazisindəki Roma ordusunun varlığına son qoydu. (lakin əslində Qərbi Roma imperiyası artıq mövcud deyildi: 476-cı ildə barbar rəhbəri Odoakr Romanı ələ keçirmiş və artıq heç bir səlahiyyəti olmayan axırıncı imperatoru taxtdan salmışdı). 496-cı ildə Xlodviq Tolbiakda (Almaniya ərazisində, hazırki Kolon yaxınlığında yerləşir.) alamanları məğlubiyyətə uğradır (Orucov, 2011: s.17-25).

**NƏTİCƏ**

Nəticə olaraq qeyd edim ki, hər bir xalqın özünəməxsus tarixi inkişaf yolu mövcuddur. Dünya tarixində Fransa da öz tarixinin rəngarəngliyi, baş verən hadisələrin müxtəlifliyi ilə fərqlənir və inkişaf etmiş ölkələr arasında özünəməxsus yer tutur. Araşdırmalardan da belə nəticəyə gəlirik ki, Fransa qədim insanların yaşayış məskəni olmuş, hələ buzlaşma dövründə burada insanlar mağaralara sığınmış, iqlimin istiləşməsi ilə qədim insanlar öz mağaralarını tərk etmişlər. Müasir Fransa ərazisində belə çoxsaylı mağaralar qeydə alınmışdır.

**ƏDƏBİYYAT SİYAHISI**

1.Mathieu, M. (1996). Mon histoire de France. Hachette Livre.

2.Monnerie, A. (1996). La France aux cent visages. Livre de l'étudiant. Paris : Les éditions Didier.

3.Mustafazadə, T. (2009). Ümumi tarix. I kitab. İqtisad Universiteti Nəşriyyatı.

4.Orucov, T. (2011). Ümumdünya tarixi. II kitab. Orta əsrlər tarixi. Bakı: Adiloğlu.

5.Abbasbəyli, A. N., və Yusifzadə, S.Z. (2009) Beynəlxalq Münasibətlər tarixi (ən qədim dövrlərdən XIX yüzilliyin 70-ci illərinin sonuna qədər). Dərslik.

# MULTİKULTURALİZMİN AZƏRBAYCAN MODELİ

**NİGAR MƏHƏRRƏMOVA**
Bakı Slavyan Universiteti
Magistratura\Tarix
meherremovanigar4@gmail.com
AZƏRBAYCAN, BAKI

**XÜLASƏ**

Məqalədə Azərbaycanın multikulturalizminin meydana gəlməsi, inkişafı və gələcəyi barədə danışılır. Diqqətə çatdırılır ki, ölkəmizdə multikulturalizm milli və ümumbəşəri dəyərləri, ədaləti, tolerantlığı, etnik mədəni və dini müxtəlifliyi, birgəyaşayışı özündə cəmləşdirir. Tarixi təcrübə onu göstərir ki, müasir multimədəni mühitin, mədəni müxtəlifliyin mövcud olmadığı, multikulturalizm siyasətinin yerildilmədiyi bir şəraitdə cəmiyyətin tərəqqisi, xalqların milli mədəniyyətlərə inteqrasiyanın harmonik inkişafı mümkün deyil. Multikulturalizm dəyərləri olmayan ölkələrdə qarşıdurmalar, milli və dini münaqişələr geniş yayılır. Azərbaycançılıq ideologiyası ilə Azərbaycan multikulturalizminin bir-birini tamamlaması həm də dini etiqada münasibətdə özünü göstərir. Həm azərbaycançılıq məfkurəsi, həm də multikulturalizm hamının qanun və məhkəmə qarşısında bərabərliyini, irqindən, etnik mənsubiyyətindən, dinindən, dilindən və s. asılı olmayaraq hər kəsin hüquq və azadlıqlarının bərabərliyinin təmin edilməsini, dini azadlığa yanaşmaq baxımından tolerant münasibəti özünün əsas prinsiplərindən hesab edir. Hər kəsin milli mənsubiyyətini qoruyub saxlamaq hüququnun olması, öz milli mənsubiyyətini dəyişdirməyə məcbur edilə bilməməsi, hər kəsin dini münasibətini müstəqil müəyyənləşdirmək hüququ olması baxımından da azərbaycançılıq ideologiyası və Azərbaycan multikulturalizm modelinin tənzimlədiyi münasibətlər üst-üstə düşür.

Beləliklə, Azərbaycan müxtəlif sivilizasiyaların qovuşduğu məkan olaraq, əsrlər boyu milli-mədəni rəngarənglik mühitinin formalaşdığı, ayrı-ayrı millətlərin nümayəndələrinin sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma şəraitində yaşadığı bir ölkə kimi tanınmışdır. Multikulturalizm tarixən azərbaycanlıların həyat tərzi olmuş, bu gün isə öz spesifik xüsusiyyətləri ilə Azərbaycan modeli kimi tanınmaqdadır.

**AÇAR SÖZLƏR: çoxmədəniyyətlilik, tolerantlıq, Multikulturalizmin Azərbaycan modeli, Azərbaycançılıq**

**AZERBAIJANI MODEL OF MULTICULTURALISM**

**SUMMARY**

The article talks about the multiculturalism model of Azerbaijan and the concept of multiculturalism. It should be noted that multiculturalism in our country includes national and universal values, justice, tolerance, ethnic cultural and religious diversity, and coexistence. Historical experience also shows that the progress of society and the harmonious development of the integration of peoples into national cultures are impossible in the absence of a modern multicultural environment, cultural diversity, and multiculturalism policy. Conflicts, national and religious conflicts are widespread in countries without multiculturalism values. The complementarity between the ideology of Azerbaijanism and the multiculturalism of Azerbaijan is also manifested in the attitude towards religious belief. Both the ideology of Azerbaijaniism and multiculturalism value the equality of everyone before the law and court, regardless of race, ethnicity, religion, language, etc. considers equal rights and freedoms of everyone, regardless of their independence, tolerant attitude towards religious freedom to be one of its main principles. In terms of everyone's right to preserve their nationality, not to be forced to change their nationality, and everyone's right to independently determine their religious attitude, the ideology of Azerbaijanism and the relations regulated by the Azerbaijani multiculturalism model coincide.

Thus, Azerbaijan is recognized as a place where different civilizations meet, a country where national-cultural diversity has been formed for centuries, where representatives of different nations live in peace, tranquility, and mutual understanding. Multiculturalism has historically been the way of life of Azerbaijanis, and today it is known as the Azerbaijani model with its specific characteristics.

**KEY WORDS: multiculturalism, tolerance, Azerbaijani model of multiculturalism, Azerbaijanism**

## GİRİŞ

Müasir dövrdə multikulturalizm cəmiyyətlərin mədəniyyətlərinin başlıca rolunda çıxış etməkdədir. Multikulturalizm ideyalarının genişləndirilməsi, təbliğ olunması, bu istiqamətdə siyasətin həyata keçirilməsi müasir dünya dövlətlərinin ən əsas vəzifələrindən biridir. Müasir dünya dövlətlərinin əksəriyyəti polietnikdir. Buna görə də həmin dövlətlərin cəmiyyətlərində sabitliyin və inkişafın təmin olunması multikulturalizm siyasəti ilə həyata keçirilir. Multikulturalizm siyasəti o zaman səmərəli olur ki, o, vahid konsepsiya üzrə həyata keçirilsin. Multikulturalizm siyasəti cəmiyyətdə etnik dini zəmində baş verən münaqişələrin, qarşıdurma hallarının qarşısını alır.

Multikulturalizm ideologiyasının əsas məqsədi əhalinin etnik irqi və dini müxtəlifliyinə baxmayaraq, cəmiyyət üzvlərinin hüquq və azadlıqlarını gerçəkləşdirmək, mədəniyyət, dil, etnik və dini dəyərləri qoruyub saxlamaqdır. Multikulturalizm mahiyyət baxımından tolerantlıqla daha çox uyğunlaşır. Multikulturalizm müxtəlif mədəniyyətlərin paralel şəkildə yaşamasını qəbul edən tolerant cəmiyyətinin əsas xüsusiyyətlərindən biridir.

Azərbaycan Respublikasında multikulturalizm dövlət siyasətidir. Ölkəmizdə tarixən multikultural dəyərlərin qorunması və inkişaf etdirilməsi diqqət mərkəzində olmuşdur. Azərbaycanda 80-dən artıq milli və etnik azlıq və xalqlar mövcuddur. Bütün tarix boyu onların arasında həmişə isti münasibətlər olmuşdur. Azərbaycan Respublikasında multikulturalizm siyasətinin əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuşdur. Ulu öndər Azərbaycanda multikultural ideyaların inkişaf etdirilməsini Azərbaycan cəmiyyətinin inkişafının mühüm şərtlərindən biri olduğunu böyük müdrikliklə müəyyənləşdirmişdir. Məhz Heydər Əliyevin sayəsində multikulturalizm siyasəti formalaşdırılmışdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev multikulturalizm siyasətini zamanın tələblərin uyğun yeni elementlərlə zənginləşdirərək onun inkişafını yeni bir mərhələyə yüksəltmişdir. Multikulturalizm sahəsində həyata keçirilən tədbirlər sayəsində multikulturalizmin Azərbaycan modeli formalaşmışdır.

Məqalənin məqsədi Azərbaycan və multikulturalizm modelinin təbliği istiqamətində tədqiqat işi aparmaqdır.

Məqalənin aktuallığı. Məqalə ona görə aktualdır ki, bu, Azərbaycanın dövlət siyasətidir.

Məqalənin praktiki əhəmiyyəti. Məqalədən bakalavr səviyyəsində oxuyan tələbələr, qeyd olunan mövzu üzrə tədqiqat aparanlar istifadə edə bilər.

Məqalənin metodologiyası. Məqalənin metodoloji əsasını ümumi elmi təhlil, sintez, analiz kimi metodlar təşkil etmişdir.

Multikulturalizm anlayışı. Multikulturalizm anlayışı son vaxtlar tez-tez müraciət olunan mövzulardan biridir. Multikulturalizm sözü ingilis dilindən tərcümədə “çoxlu mədəniyyətlər” deməkdir. Multikulturalizm eyni bir dövlətdə müxtəlif mədəniyyətlərin qorunması, inkişafı və təbliğinə yönəlmiş bir siyasətdir. O, dövlət siyasəti olmaqla tolerantlığı əks etdirir. Çünki tolerantlıq olmadan etnik dini müxtəlifliklər arasında qarşılıqlı anlaşma, əməkdaşlıq və dostluq mümkün deyildir. [3, səh 35]

Multikulturalizm özündə bir çox xüsusiyyətləri ehtiva edir. Bu xüsusiyyətlər aşağıdakılardır:

- Birincisi, multikulturalizm dünya xalqlarının etnik, dil, dinini qoruyub saxlayır. Böyük və kiçik ölkələr də daxil olmaqla, bütün xalqların tarixi prosesdə birlikdə iştirak etməsini təmin edir.
- İkincisi, multikulturalizm hər bir insana ədalətli şəkildə davranılmasını, etnik azlıqların hüquqlarının tanınmasını, “açıq qapı siyasəti”ni uğurla həyata keçirir. Xalqların mədəniyyət və ənənələri ciddi şəkildə öyrənilir və nəzərə alınır.
- Üçüncüsü, multikulturalizm etnik azlıqlara bərabər inkişaf şəraiti yaradır. Onlara ipoteka güzəştlərinin, təhsil kvotalarının, elmi tədqiqat qrantlarının verilməsi qeyd olunanlara bir nümunədir. Eyni zamanda milli məktəblərin, jurnalların, mətbuatın, teatrların, yaradıcı kollektivlərin, musiqi müsabiqələrində etnik azlıqların da iştirakı təmin edilir.
- Dördüncüsü, multikulturalizm miqrantlara və ya etnik azlıqlara qarşı aparılan assimilyasiya, seqreqasiya kimi siyasətlərdən daha çox üstünlüyə malikdir. Multikulturalizm ksenofobiyaya, irqçiliyə, aparteidə qarşı durur.
- Beşincisi, multikulturalizm immiqrant icmalarının çoxalmasının qarşısını alır. O, sosial və dini münaqişələri aradan qaldırmaqla vətəndaşların hüquq və azadlıqlarını qoruyur. [4, səh 57]

Multikulturalizmin özünün də müxtəlif ölkələrdə həyata keçirilən müxtəlif modelləri mövcuddur. Multikulturalizm modeli dedikdə isə, bir dövlətin sərhədləri daxilində etnik müxtəlifliklərin dinc yaşaması və öz mədəni xüsusiyyətlərini, həyat tərzini qoruyub saxlamaq hüququna malik olması nəzərdə tutulur. Amerika Birləşmiş Ştatları, İsveç, Kanada, Avstraliya və sair kimi ölkələrin hər biri öz tarixi və etnik keyfiyyətlərindən asılı olaraq müxtəlif şəkildə multikulturalizm siyasətini həyata keçirirlər. Bu siyasəti həyata keçirən ölkələrin siyahısında Azərbaycan Respublikasının da adı xüsusilə vurğulanmalıdır. Çünki hal-hazırda Azərbaycanda həyata keçirilən bu multikulturalizm modeli daha sabit və dayanıqlı olduğundan, bir çox dövlətlər tərəfindən örnək kimi qəbul edilmişdir. [1, səh 198]

Multikulturalizmin Azərbaycan modeli. Azərbaycanda multikulturalizm ənənələrinin kökləri kifayət qədər qədimdir. Azərbaycanda əsrlər boyu etnik müxtəliflikl ərin nümayəndələri mövcud olmuşlar. Azərbaycanda yaşayan müxtəlif etnik azlıqlar özlərinin adət-ənənələrini, dillərini, dinlərini olduğu qoruyub saxlamaq və inkişaf etdirmək imkanlarına malik olmuşlar. Azərbaycan ərazisində 80-dən artıq digər xalqların nümayəndələri azərbaycanlılarla eyni hüquqlara malik olaraq yaşamaqdadırlar. Etnik tərkibi rəngarəng olan Azərbaycanda multikulturalizm siyasətinin reallaşdırılması daxili və xarici siyasətin inkişafına dəlalət edir. Təsadüfi deyildir ki, Azərbaycanda milli məsələlərə çox böyük həssaslıqla yanaşılır. [7, səh 42]

Qeyd etmək lazımdır ki, tarix boyu Azərbaycanda yaşayan etnik müxtəliflikl ər həm də Azərbaycanın ictimai-siyasi həyatında da sərbəst fəaliyyət göstərmişlər. Bunlara əsasən deyə bilərik ki, Azərbaycanda tarixən multikulturalizm təcrübəsi mövcud olmuşdur. Tarixə diqqət yetirsək, görərik ki, Azərbaycan ərazisinə köçmüş etnik azlıqların nümayəndələri də Azərbaycan xalqından multikulturalizm və tolerantlıq ənənələrini öyrənmişlər. Azərbaycanda etnik mədəni və dini müxtəliflikl ərin tənzimlənmə siyasəti düzgün aparıldığından burada etnik dini zəmində zidiyyətlər müşahidə olunmamışdır. Əksər tədqiqatçıların fikrincə, Azərbaycanda etnik mühit tarixən sabit olmuşdur. Azərbaycan ərazisində yaşayan bütün etnik qrupların nümayəndələrinə demək olar ki, eyni münasibət bəslənilmişdir. Təbii ki, Azərbaycan ərazisində yaşayan etnik ermənilər istisna təşkil etmişlər. Belə ki, Azərbaycanda yaşayan erməni azlığı müxtəlif ixtilaflar törətməklə yanaşı, həm də ümumilikdə bütün etnik azlıqlar arasında ziddiyyətlər yaratmağa çalışmışlar. Buna baxmayaraq, Azərbaycan multikultural ənənələrin qorunmasında və inkişaf etdirilməsində dövlət siyasəti həyata keçirməkdədir. Azərbaycan dövləti daxili siyasətinin mühüm istiqaməti həm də müxtəlif etnik qrupların dil, din və ənənələrinin qorunmasına yönəlmişdir. Eyni zamanda Azərbaycanda düzgün həyata keçirilən multikulturalizm siyasəti etnik dini müxtəliflikl ərin dinc yaşamasını da təmin edir. [8]

Bildiyimiz kimi, Azərbaycan Respublikası çoxmillətli bir dövlətdir. Xalq azərbaycanlılardan və bir sıra etnik azlıqlardan yəni, tatlar, talışlar, ləzgilər, ingiloylar, qrızlar, xınalıqlar və digərlərindən təşkil olunmuşdur. Bu millətlərin tarixən ayrıca vətəni olmamış və məhz bu səbəbdən də onlar Azərbaycanda məskunlaşaraq bu ölkənin vətəndaşlarına çevrilmişlər. Lakin onu da qeyd etmək lazımdır ki, bu millətlərdən başqa respublikamızda öz tarixi vətənləri olan ruslar, ukraynalılar, belaruslar, kürdlər, yəhudilər, yunanlar, almanlar və tatarlar da yaşayırlar. Hətta Azərbaycan ərazisində bu millətlərin bəzilərinə aid olan öz kəndləri, küçələri və qəsəbələri mövcuddur.

Təkcə Bakıda rusların, ukraynalıların, kürdlərin, lakların, ləzgilərin, slavyanların, tatların, tatarların, gürcülərin, ingiloyların, talışların, avarların, axıska türklərinin, Avropa və dağ yəhudilərinin, gürcü yəhudilərinin, alman və yunanların iyirmidən yuxarı cəmiyyətləri və mədəniyyət mərkəzləri vardır. Ümumiyyətlə, etnik azlıqların birgə yaşadıqları bütün rayonlarda bu cür icmalar mövcuddur.

Multikulturalizmin Azərbaycan Respublikasının daxili siyasətinin tərkib hissəsi olmasının mühüm təzahürlərindən biri burada dövlət-din münasibətlərinin yüksək səviyyədə olmasındadır. Demokratik, hüquqi və dünyəvi dövlət olan Azərbaycan Respublikasında din dövlətdən ayrıdır. Azərbaycanda dövlət-din münasibətlərinin yüksək səviyyədə olması özünü ilk növbədə dörd əsas məqamda göstərir:

1. Ölkəmizdə dini azadlıqların təmin edilməsində;
2. Bütün dinlərin, dini məzhəblərin qanun qarşısında bərabər olmasında;
3. Dini icmaların fəaliyyətlərinə dövlət tərəfindən hər cür dəstək göstərilməsində;
4. Dinlərarası münasibətlərin qarşılıqlı hörmət və əməkdaşlıq əsasında qurulmasında.

1. Azərbaycan vətəndaşlarının dini etiqad azadlığının təmin olunması Azərbaycan Respublikasının daxili siyasətinin başlıca istiqamətlərindən biridir. Azərbaycan dövləti ölkə vətəndaşlarının dini etiqad azadlığına onların hüquq və azadlıqlarının tərkib hissəsi kimi yanaşır. Ölkə

vətəndaşlarının dini etiqad azadlığı Azərbaycan Respublikası Konstitusiyasına, "Dini etiqad azadlığı haqqında" qanuna əsaslanır.

2. Azərbaycanda dinlərin və dini məzhəblərin qanun qarşısında bərabər olmasına gəldikdə, ilk növbədə qeyd etmək lazımdır ki, burada söhbət Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində (DQİDK) dövlət qeydiyyatından keçmiş dini qurumlardan gedir.

3. Dövlət bütün dini qurumların hər birinə lazımi köməklik və maliyyə dəstəyi göstərir. Rəsmi məlumata əsasən, 2003-cü ildən bəri Azərbaycanda 250-yə yaxın məscid tikilmiş və ya təmir edilmişdir. Belə məscidlərdən Bibiheybət, Təzəpir, Əjdərbəy, Heydər məscidlərini, İmamzadə dini, tarixi, mədəni mərkəzini və başqalarını nümunə göstərmək olar. Eynilə rus pravoslav, katolik, alban kilsələrinin, sinaqoqların tikintisi, təmiri işlərində dövlət öz lazımi köməyini göstərmişdir. [5, səh 174]

Hazırda Azərbaycanda müsəlman icmaları ilə paralel şəkildə qeydə alınmış 21 qeyri müsəlman dini icmaların fəaliyyətini təmin edən "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanunu və bu qanunun icrasını həyata keçirən Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi mövcuddur. Komitənin əsas vəzifəsi isə ölkədə müxtəlif din və konfessiyalara bərabər imkanlar və şərait yaratmaqdan ibarətdir.

Azərbaycanda dinlərarası tolerantlıq dünyanın bir çox ölkələri üçün xüsusi bir model kimi formalaşmışdır. Ölkə vətəndaşlarının böyük əksəriyyətini təşkil edən müsəlmanların hüquqlarını təmin etməklə yanaşı, dövlət respublika ərazisində yayılan bütün ənənəvi dinlərə qayğı göstərir.

Multikulturalizmin Azərbaycan modelinin fərqləndirici xüsusiyyətləri ölkənin daxili və xarici siyasətində özünü büruzə verir. Bu xüsusiyyətlərin əsasını ölkəmizdə multikulturalizmin bir çox sahələrdə özünün yüksək inkişaf mərhələsi olan interkulturalizm mərhələsinə qalxması təşkil edir. Bu o deməkdir ki, Azərbaycan Respublikasının multikulturalizm siyasəti cəmiyyətdəki etnik-mədəni müxtəlifliyi qorumaqla yanaşı, onlar arasında dialoq və əməkdaşlıq münasibətlərini yaradır. O, müxtəlif mədəniyyətlərin dəyərlərini özündə birləşdirərək inteqrasiya proseslərinin gücləndirilməsinə səbəb olur. Bu isə ölkənin sosial-iqtisadi və mədəni inkişafına müsbət təsir göstərir. [6]

Milli azlıqların hüquq və azadlıqlarının qorunması Azərbaycan dövlətinin yürütdüyü siyasətin əsas istiqamətlərindən biridir və tolerantlıq baxımından örnək bir dövlət kimi özünü təsdiqləyən Azərbaycan hazırda burada yaşayan bütün xalqların, bütün dinlərə etiqad edənlərin azad yaşadığı bir dövlətdir. İrqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən və mənsubiyyətindən asılı olmayaraq, bütün vətəndaşların hüquq və azadlıqlarının bərabərliyini təmin edən milli siyasətin əsas müddəaları Azərbaycan konstitusiyasında (maddə 25, 44.) göstərilmişdir. Azərbaycan Respublikasının milli siyasət konsepsiyası həmçinin aşağıdakı beynəlxalq sənədlərə əsaslanır: [2]

- BMT-nin İnsan hüquqları Haqqında Ümumi Bəyannaməsi;
- İnsan Hüquqlarının və Əsas Azadlıqların Müdafiəsi Haqqında Avropa Konvensiyası;
- BMT-nin "İqtisadi, sosial və mədəni hüquqlar haqqında" Beynəlxalq Paktı;
- Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin Yekun aktı;
- ATƏT-in insan meyarları üzrə Konfransının Kopenhagen sənədi;
- Müstəqil Dövlətlər Birliyinin üzvləri tərəfindən qəbul edilmiş "Milli azlıqlara mənsub olan şəxslərin hüquqlarının təmin edilməsi haqqında" konvensiya.

Azərbaycanda müxtəlif millətlərin nümayəndələri cəmiyyətin ayrı-ayrı sahələrində məhsuldar işləyərək ölkənin inkişafına layiqli töhfələr verir, dövlət strukturlarında çalışırlar. Milli Məclis də ölkənin bir sıra etnik azlıqları, o cümlədən, rus, ləzgi, tat, talış və b. öz nümayəndələri ilə təmsil olunurlar. [9]

Beləliklə, Azərbaycan Respublikasında multikulturalizm ideyalarının özünə ciddi yer etməsi və sürətlə genişlənməsi dövlətin məqsədyönlü siyasətinin nəticəsidir. Hazırda Avropadakı və Azərbaycandakı multikulturalizm siyasəti sahəsində vəziyyət aydın göstərir ki, ölkəmiz bu istiqamətdə xüsusi modelini formalaşdırmışdır. Azərbaycanda multikulturalizm sosial həyat tərzinə çevrilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənabları multikultural dəyərlərin qorunmasını və inkişaf etdirilməsini cəmiyyətin sabitliyinin və inkişafının başlıca şərti kimi qiymətləndirir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev haqlı olaraq demişdir: "Multikulturalizm Azərbaycanın dövlət siyasəti və həyat tərzidir. Bu gün Azərbaycan artıq dünyada tanınmış multikulturalizm mərkəzlərindən biridir". Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev müxtəlif mədəniyyətlər və dinlərarası münasibətlərin sağlam bünövrə üzərində qurulmasına nail olmuşdur. Azərbaycan Respublikasının multikulturalizm siyasətinin həyata keçirilməsində

nüfuzlu beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq etməsi, ölkəmizdə bu məsələyə xüsusi həssaslıqla yanaşıldığını dəqiq sübut edir. [1, səh 202]

**NƏTİCƏ**

Beləliklə, məqalədə Azərbaycan multikulturalizminin sadalanan müsbət xüsusiyyətlərini vurğulamaqla bərabər onu da qeyd etməliyik ki, Azərbaycanda tətbiq olunan multikulturalizm modeli müəyyən qədər Kanada modelinə bənzəsə də, onun özünün bir çox fərqləndirici xüsusiyyətləri mövcuddur. Ölkəmizdə tətbiq olunan bu modeli sadə şəkildə izah etmək müəyyən qədər çətindir. Artıq ölkəmizdə tətbiq olunan bu modelin bir hədəf yox, qorunmalı olan mövcud bir vəziyyət olduğunu da söyləyənlər az deyildir. Çünki Azərbaycanda mövcud olan multikulturalizm Avropa ölkələrində tətbiq olunub uğursuzluğa düçar olan modellərdən öz tarixi köklərinə və sabitliyinə görə kifayət qədər fərqlənir. Ölkəmizdəki multikulturalizm modeli etnik-mədəni müxtəlifliklər tanıyır və onların birgə şəkildə yaşaması üçün tolerantlığı təşviq edir. 2016-cı ilin "Multikulturalizm ili" elan edilməsi də ölkəmizdə multikulturalizm siyasətinin uğurla həyata keçirildiyinin və bu siyasətə kifayət qədər önəm verildiyinin bir nümunəsidir. Deməli, multikulturalizmin Azərbaycan modeli dünyada özünü doğrultmuşdur və o, nümunəvi yeni modeldir.

**ƏDƏBİYYAT SİYAHISI:**

1. Azərbaycan multikulturalizmi: Ali məktəblər üçün dərslik. – Bakı. 2017. - 416 səh.
2. Azərbaycanda multikulturalizm: biblioqrafiya. Ə.Qarayev, K.Abdullayev. Bakı, 2016.- 504 s.
3. "Azərbaycan multikulturalizminin ədəbi-bədii qaynaqları". Bakı, "Mütərcim", 2016. 287 s.
4. Azərbaycanda multikulturalizmin xüsusiyyətləri və istiqamətləri. Cahangir Cahangirli. Elm və İnnovativ Texnologiyalar jurnal. 2017 səh 57-68
5. Hacıyev A.N., Cəfərova E.H., Məmmədov İ.M. Multikulturalizmə giriş: Ali məktəblər üçün dərs vəsaiti. – Bakı: Mütərcim, 2018. – 372 səh
6. Hüseynov H. Azərbaycanda XIX əsr ictimai və fəlsəfi fikir tarixindən. Bakı: Şərq-Qərb, 2007
7. Multikulturalizm Azərbaycanın həyat tərzidir: metodik tövsiyələr /tərt. ed.: M.Hacıyeva, N.Alışova; red. və burax. məsul K.Tahirov; M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası.- Bakı, 2016.- 59 s
8. Multikulturalizmin Azərbaycan modeli. İradə Sarıyeva. Məqalə. Bakı xəbər.- 2016.- 21-23 may.- S.15
9. Muxtarova N. Heydər Əliyevin milli vətənpərvərlik elmi konsepsiyası. 2018

# MÜASİR DÖVRDƏ CƏNUBİ KOREYANIN DÖVLƏTÇİLİK SİYASƏTİNİN PRİORİTET İSTİQAMƏTLƏRİ

**Mürşüdzadə Ceyhun Elşən oğlu**
AMEA Z.M Bünyadov adına Şərqşünaslıq İnstitutu
Asiya-Sakit Okean regionu ölkələri şöbəsinin kiçik elmi işçisi
E-mail: mursudzade_ceyhun@mail.ru
Bakı, Azərbaycan

**Xülasə**

Koreya Respublikasında və ya Cənubi Koreyada idarəetmə forması əsasən prezidentlik sisteminə əsaslanır və bunun əsasını qanunvericilik və icra hakimiyyəti orqanlarının fəaliyyətinin bir-birindən asılı olmayaraq həyata keçirməsi təşkil edir. Cənubi Koreyada prezident parlament idarəetmə sistemi olan ölkələrdə olduğu kimi Milli Assambleya tərəfindən seçilmir, birbaşa xalq tərəfindən seçilir. Koreya Respublikası demokratik respublikadır və Koreya Respublikasının suverenliyi xalqın əlindədir. Ölkəninin bütün vətəndaşları yaşamaq və hərəkət etmək azadlığına malikdirlər. Bütün vətəndaşların qanunla müəyyən edilmiş qaydada səsvermə hüququ və qanunla müəyyən edilmiş qaydada dövlət vəzifəsi tutmaq hüququ vardır.

Müasir dövrdə Cənubi Koreyanın dövlətçilik siyasətinin prioritet istiqamətləri məqalədə öz əksini tapmışdır. Cənubi Koreya təcrübəsi sübut edir ki, demokratik keçidin uğuru bir sıra sosial-iqtisadi amillərdən asılıdır. Cənubi Koreyada demokratikləşmə dövlətin hüquqi sferasına böyük təsir göstərir.

Qanunvericilik dəyişiklikləri Koreya cəmiyyətinin sosial və siyasi yenilənməsi ilə üst-üstə düşür. Koreya Respublikasının hökuməti üç orqana bölünür: qanunvericilik, icraedici hakimiyyəti və məhkəmə hakimiyyəti. Bununla belə, tipik prezident üsul-idarəsindən fərqli olaraq, qanunvericilik və icraedfici hakimiyyətlər arasında yaxınlıq müşahidə olunur. Koreya Respublikasında siyasət demokratik respublikaya əsaslanır və dövlət başçısı icraedici hakimiyyətinin başçısı olan prezidentdir. Bununla yanaşı, hakimiyyətin bölünməsi prinsipi konstitusiya ilə təmin edilir. Konstitusiyada və ya qanunda başqa hal nəzərdə tutulmayıbsa, Milli Assambleyanın üzvlərinin çoxluğunun təsdiqi ilə qərarlar qəbul edir. Əgər bərabərlik olarsa, rədd edilmiş sayılır. Milli Assambleyanın iclasları ictimaiyyət üçün açıqdır. Lakin iclasda iştirak edən üzvlərin əksəriyyətinin razılığı olduqda və ya sədr milli təhlükəsizliyin təmin edilməsini zəruri **hesab etdikdə açıqlana bilməz.**

**Açar sözlər: Koreya Respublikası, dövlətçilik siyasəti, siyasi partiyalar, dövlət hakimiyyəti, seçki sistemləri.**

## PRIORITY DIRECTIONS OF THE STATE POLICY OF SOUTH KOREA IN THE MODERN PERIOD

### Summary

The form of government in the Republic of Korea or South Korea is mainly based on the presidential system, which is based on the independent functioning of the legislative and executive authorities. In South Korea, the president is not elected by the National Assembly, as in countries with a parliamentary system of government, but is elected directly by the people. The Republic of Korea is a democratic republic and the sovereignty of the Republic of Korea is in the hands of the people. All citizens of your country have the freedom to live and move. All citizens have the right to vote in the manner established by law and the right to hold public office in the manner established by law.

The priority directions of South Korea's statehood policy in modern times are reflected in the article. South Korea's experience proves that the success of the democratic transition depends on a number of socio-economic factors. Democratization in South Korea has a great impact on the legal sphere of the state. The legislative changes coincide with the social and political renewal of Korean society. The government of the Republic of Korea is divided into three branches: the legislature, the executive, and the judiciary. However, unlike the typical presidential system, there is closeness between the legislative and executive branches. Politics in the Republic of Korea is based on a democratic republic, and the head of state is the president, who is the head of the executive branch. In addition, the principle of separation of powers is guaranteed by the constitution. Unless otherwise provided by the Constitution or the law, it makes decisions with the approval of the majority of the members of the National Assembly. If there is a tie, it is considered rejected. Meetings of the National Assembly are open to the public. However, it cannot be disclosed if the majority of the members present at the meeting agree or if the chairman considers it necessary to ensure national security.

**Key words: Republic of Korea, state policy, political parties, state power, electoral systems.**

**Giriş**

Bu araşdırmada Cənubi Koreyanın dövlətçilik siyasətinin bəzi nəzəri və tarixi aspektlərini təhlil edilmiş və müasir dövrdə onun demokratik inkişaf istiqamətləri müəyyənləşdirilmişdir.

Tədqiqat prosesində müəllif Cənubi Koreyada müasir dövrdə baş verən tarixi-siyasi proseslərlə bağlı Azərbaycan, Türkiyə, Cənubi Koreya və digər xarici elmi ədəbiyyatı öyrənmişdir. Bu işin məqsədi Cənubi Koreyanın timsalında post-ənənəvi cəmiyyətdə siyasi modernləşmənin fenomenini, əsas istiqamətlərini və nəticələrini öyrənmək, demokratiyanın təkmilləşdirilməsi perspektivlərini müəyyən etməkdir.

Tədqiqat işinin strukturu giriş, beş yarımfəsil, nəticə və xülasədən ibarətdir. Tədqiqatın sonunda istifadə olunan ədəbiyyat siyahısı təqdim edilmişdir.

Tədqiqatın nəzəri və metodoloji əsası kimi müəllif sistemli və struktur-funksional yanaşma prinsiplərinə əsaslanmış, obyektivliyin, səbəb-nəticə əlaqələrinin dialektik prinsiplərini rəhbər tutmuşdur.

Cənubi Koreyada dövlətçilik siyasətinin formalaşma tarixi

1980-ci illərin ortalarında Koreya Respublikasında demokratikləşmənin "üçüncü dalğası" meydana gəldi və demokratik proseslər müsbət çərçivədə inkişaf etməyə başladı. Bu dövrdən etibarən Koreya xalqı ardıcıl olaraq iqtisadi, sosial və nəhayət, siyasi modernləşmə problemlərini həll etdi. Bu

proses əhalinin iqtisadi artımı fonunda, dövlətlə işgüzar dairələr arasında fəaliyyət göstərən münasibətlər sistemi ilə başladı. 1987-ci ilin iyununda ümummilli demokratik hərəkatın yüksəlişi avtoritar rejiminin süqutu ilə nəticələndi və Cənubi Koreya dövlətində mühüm siyasi dəyişikliklər baş verdi. Əvvəlki avtoritar sistemdə Mülki Hüquqlar Aktı sadəcə formal xarakter daşıyır, qanunlar diktaturanı saxlamaq və dissidentləri sıxışdırmaq üçün alət rolunu oynayırdı. Demokratikləşmə Koreya Respublikasının milli təhlükəsizlik məsələləri ilə bilavasitə bağlı olan əhəmiyyətli dəyişikliklə nəticələndi. "Cənubi Koreyada siyasətinin dəyişməsinə beynəlxalq mühitdə baş verən hadisələr və daxili məsələlərlə də öz növbəsində təsir göstərdi. 1990-cı ildə Cənubi Koreya Asiya pələnglərindən birinə çevrildi" (Hüseynova, 2022, s.152).

İnkişaf etməkdə olan demokratik proses şəraitində Koreya Respublikası Milli Assambleyasının fəaliyyətinin mühüm istiqamətlərindən biri də ölkənin qanunvericilik bazasına yenidən baxılması olmuşdur. Milli təhlükəsizlik sahəsində müasir qanunvericiliyin xüsusiyyətlərini başa düşmək üçün 1987-2000-ci illərin demokratik islahatları zamanı Cənubi Koreyanın qanunvericiliyində nələrin dəyişdirildiyini və avtoritarizm dövründən nəyin qorunub saxlanıldığını anlamaq lazımdır. 1990-cı illərin ortalarından başlayaraq Koreya Respublikasının bir çox mütərəqqi siyasətçiləri və ictimai xadimləri milli təhlükəsizlik sahəsində qanunvericiliklə bağlı oxşar nöqteyi-nəzərdən çıxış ediblər.

Demokratik proses inkişaf etdikcə prezident milli təhlükəsizlik qanunvericiliyi ilə bağlı ictimai müzakirələrə birbaşa və açıq şəkildə müdaxilə etdi. Milli Təhlükəsizlik Qanunu ölkəni həqiqətən təhdid edənlərə qarşı deyil, əsasən hökumətin əleyhdarlarını və onun hərəkətlərini tənqid edənləri təqib etmək üçün istifadə edildi. Mülki və humanitar hüquqların kobud şəkildə pozulması, qeyri-insani hərəkətləri tez-tez baş verirdi. Diktatura rejiminin yadigarı olan bu qanun Koreyanın qaranlıq tarixinin bir hissəsi idi və bu qanunu tətbiq etmək düzgün olmazdı. "Cənubi Koreyanın yaşadığı 1997-ci il böhranı və sonrakı siyasi və sosial dəyişikliklər ölkə daxilində vətəndaş və siyasi aktorların davranışını formalaşdırdı və Cənubi Koreyanın ənənəvi dövlət əsaslı inkişaf siyasətlərindən əl çəkməsinə, neoliberal siyasətlərə riayət etməsinə və ticarətdə azadlığın müdafiəsinə səbəb oldu" (Dong-Woo Cho, 2019, s.56).

1998-1999-cu illərin böhran şəraitində işləmək, iqtisadi sabitliyi qorumaq və tətil fəaliyyətini dayandırmaq lazım idi, iqtisadi sahədə qanunun geniş şərhindən istifadə edilirdi. Koreya Respublikasının hüquq müdafiəçiləri və bir çox hüquqşünasları bir sıra qanunlara köklü şəkildə yenidən baxılmasında israr edirdilər, lakin hakimiyyət onların fikirlərini dinləməməyi üstün tutur və qanunvericiliyə yenidən baxmağa getmir. Milli Assambleyanın bir sıra deputatları demokratik ictimaiyyətin dəstəyi ilə Milli Təhlükəsizlik Qanununa yenidən baxılması təklifini dəfələrlə parlamentin müvafiq komissiyalarına təqdim ediblər. Cənubi Koreyanın iki prezidenti Kim De Çjun və No Mu Hyon hüquqi islahatların real inkişafı nöqteyi-nəzərindən qanunvericiliyin liberallaşdırılması lehinə tez-tez populist bəyanatlar versələr də, adi mühafizəkar kursu davam etdirirdilər.

Koreya Respublikasının hazırkı Konstitusiyası 1987-ci ildə referendumla qəbul edilib və 25 fevral 1988-ci ildə qüvvəyə minib, bundan əvvəl 1948, 1962, 1972 və 1980-ci il konstitusiyaları qüvvədə olub (Республика Корея, 2019).

Koreya Respublikasının Konstitusiyasının 66-cı maddəsində görə ölkədə prezidentlik sistemi mövcuddur (대한민국헌법, 1988). Bununla belə, ABŞ-dan fərqli olaraq, ciddi qüvvələr bölgüsü yoxdur. Bu səbəbdən də uyğun idarəetmə formasının nə olması ilə bağlı mübahisələr davam edir. Əslində, keçmiş prezident No Mu Hyon da Konstitusiyaya dəyişiklik edilərkən kabinet sisteminə keçidin nəzərə alınması lazım olduğunu söylədi və keçmiş prezident Li Myen Bakın da Konstitusiyaya dəyişiklik edilməsində maraqlı olduğu məlumdur. Li Myen Bak tərəfdarı olan qanunvericilərə görə, prezident Li Myen Bak və özləri mərkəzləşdirilməmiş prezident sistemində (ikili idarəetmə sistemi) çox maraqlıdırlar. 31 avqust 2009-cu ildə Milli Assambleyanın Konstitusiya Araşdırma Məsləhət Komitəsi araşdırmadan sonra konstitusiya dəyişikliyini elan etdi. İki konstitusiya dəyişikliyi, biri 4 illik müddətə və mərkəzləşdirilməmiş prezident sistemi təklif edildi və məlumdur ki, məsləhət komitəsində əksəriyyət mərkəzləşdirilməmiş prezident sistemini dəstəkləyir.

Koreya Respublikasının Milli Assambleyası

Koreya Respublikasında qanunverici orqan kimi fəaliyyət göstərən Milli Assambleya (대한민국 국회, 大韓民國國會; Daehan-min-guk Gukhoe) xalq tərəfindən seçilən üzvlərdən ibarət konfrans əsaslı orqandır və Koreya Respublikasının xalqını təmsil edən bir qurumdur. Bundan əlavə, o, Milli Assambleya üzvlərinin xalq suverenliyi prinsipinə uyğun olaraq milli idarəetmənin əsasına çevrilən qanunları qəbul etdiyi qanunverici orqandır. O, həm də xalq adından dövlət idarəçiliyinə nəzarət edən və nəzarət edən hökumət nəzarəti orqanı kimi xidmət edir. Bu mühüm rolu yerinə yetirmələrinə baxmayaraq, siyasi partiyaların siyasiləşməsi nəticəsində deputatlar partiya siyasəti ilə bağlanır və ictimai iradəni lazımi səviyyədə əks etdirə bilmirlər. Son illər inzibati milliləşdirmə fenomeni səbəbindən Milli Assambleyanın statusu zəifləyib.

Milli Assambleya seçkiləri azad, bərabər, gizli, birpilləli, ümumi seçki hüququ, açıq sayma və hesablama prinsipləri əsasında keçirilir. Millət vəkili seçilmək üçün yaş həddi 25-dir (Kore Gerçeği, 2011, s. 197). Deputatların siyasi məsuliyyəti baxımından işlədilə biləcək mexanizm yoxdur. İcraedici hakimiyyət (prezident) qanunverici orqanın fəaliyyətini dayandıra bilməz. Millət vəkilləri birbaşa xalqın səsi ilə vəzifəyə gəldiyindən, cəmiyyət qarşısında siyasi məsuliyyət daşıyırlar. Bundan əlavə, mənsub olduqları siyasi partiyanın sədri qarşısında partiya nizam-intizamı ilə bağlı partiyadaxili öhdəlikləri var (Aydoğdu, 2017, s.709).

Koreya Respublikasının Milli Assambleyası əsasən birpalatalıdır. İkinci Respublika dövründə qısa müddət ərzində ikipalatalı sistem qəbul edildi, lakin Üçüncü Respublika dövründə birpalatalı sistemə qaytarıldı və bu gün olduğu kimi qalır. 19-cu Milli Assambleyaya olan məlumata görə, Milli Assambleyadakı yerlərin sayı 300-dür, regional dairələrdə 253 yer, milli dairələrdə isə 47 yer (partiya siyahısı ilə proporsional təmsilçilik sistemi) vardır. Milli Assambleyanın üzvlərinin səsverməsi ilə seçilən və bir spiker və iki sədr müavinindən ibarət Milli Assambleyanın sədrliyi var.

Milli Assambleyada sövdələşmə qrupu var, ona görə də Milli Assambleyanın 20-dən çox üzvü olan siyasi partiya (bəzən digər siyasi partiyaların üzvləri) danışıqlar qrupu yarada bilər. Danışıq qrupunun məqsədi əvvəlcədən öz üzvlərinin fikirlərini birləşdirməkdir, lakin onun azlıqda olan partiyaların fikirlərini əks etdirməsini çətinləşdirən mənfi cəhətləri də var.

Koreya Respublikası Milli Assambleyasının iclasları müntəzəm və növbədənkənar sessiyalara bölünə bilər. Növbəti iclas hər il sentyabrın 1-də açılır və sessiya 100 gündən az davam edir. Növbədənkənar sessiyalar Prezidentin və ya Milli Məclis üzvlərinin 1/4-dən çoxunun tələbi ilə keçirilir və sessiyanın müddəti 30 gündən çox ola bilməz. Bundan əlavə, gündəm ümumiyyətlə qeydiyyatdan keçmiş üzvlərin əksəriyyətinin iştirakı ilə iştirak edən üzvlərin əksəriyyətinin təsdiqi ilə (buna ümumi kvorum deyilir) qərar verilir və səslər bərabər olduqda rədd edilir. Bundan əlavə, hallar var ki, səsvermə üçün kvorum Konstitusiya və ya qanunla xüsusi olaraq müəyyən edilir. Qətnamənin qəbul edilməsi prosesində bir neçə prinsip var, o cümlədən iclasın ictimaiyyətə açılması prinsipi, sessiyanın davam etdirilməsi prinsipi və yoxluq prinsipi.

Konstitusiyaya düzəlişlər, yüksək vəzifəli məmurların impiçmenti və digər qeyd olunan məsələlər xüsusi kvoruma tabedir. Bundan əlavə, Prezidentin qanun layihəsinə veto hüququndan istifadə etməsi səbəbindən yenidən qərar qəbul edildiyi halda, qeydiyyatdan keçmiş üzvlərin əksəriyyətinin iştirak etməsi ümumi kvorumla eynidir, lakin 2-nin təsdiqlənməsi ilə fərqlidir. İştirak edən üzvlərin 3-ü tələb olunur.

Milli Assambleyanın yerinə yetirdiyi funksiyalara qanunvericilik funksiyaları, maliyyə ilə bağlı funksiyalar, konstitusiya institutlarının formalaşdırılması funksiyası və dövlət işlərinə nəzarət funksiyası daxildir. Yalnız Milli Assambleya üzvlərinin malik olduğu hüquqlara Milli Assambleyada vəzifələrini yerinə yetirərkən verilən şərhlərə və səslərə görə Milli Assambleyadan kənar məsuliyyətdən toxunulmazlıq və Milli Assambleyasının razılığı olmadan həbs edilməmək və ya həbs edilməmək hüququ daxildir. Bəzi hallarda Milli Assambleyasının tələbi ilə azadlığa buraxılma kimi imtiyaz hüququn verilməsində məqsəd Milli Assambleyasının fəaliyyətində müstəqilliyi təmin etmək və Milli Assambleya üzvlərinin öz vəzifələrini sədaqətlə yerinə yetirmələrini təmin etməkdir. Bundan əlavə, bu hüquqlar verildiyi üçün müvafiq vəzifələr, o cümlədən dürüstlük vəzifəsi, status və imtiyazlardan sui-istifadə etməmək vəzifəsi, milli maraqları üstün tutmaq vəzifəsi və eyni zamanda qanunla müəyyən edilmiş vəzifələr tutmağı qadağan etmək vəzifəsi də mövcuddur.

Koreya Respublikasında icraedici hakimiyyət

Koreya Respublikasının prezidenti eyni zamanda icraedici hakimiyyətin başçısı və dövlət başçısı rolunu yerinə yetirir. Müvafiq olaraq, hər birinin müvafiq səlahiyyəti var. Həmçinin, Prezident vəzifədə olduğu müddətdə, üsyan və ya valyuta cinayəti törətmədiyi halda, cinayət təqibinə məruz qalmır, çünki o, təqib etməmək imtiyazına malikdir. "Cənubi Koreyada icra hakimiyyəti Prezidentin sədrlik etdiyi Dövlət Şurası tərəfindən həyata keçirilir. Dövlət Şurası çərçivəsində hakimiyyətə yalnız prezident seçki yolu ilə gəlir. Dövlət Şurası prezident, baş nazir, baş nazirin müavini və konstitusiyaya görə sayı 15 ilə 30 arasında dəyişən kabinet üzvlərindən ibarətdir" (Alkan ve Çeliksoy, 2022, s.39).

Koreya Respublikasının mərkəzi inzibati qurumu milli inzibati işlərə cavabdeh olmaq üçün yaradılmış inzibati qurumdur. O, yerli inzibati orqanlardan onunla fərqlənir ki, onun yurisdiksiyası bütün ölkəni əhatə edir. Həmçinin icra hakimiyyəti adlanan o, qanunvericilik hakimiyyətini həyata keçirən Milli Assambleya və məhkəmə hakimiyyətini həyata keçirən məhkəmələr və Konstitusiya Məhkəməsi ilə birlikdə Koreya Respublikasının hökumətini təşkil edir.

Koreya Respublikasının Administrasiyası Prezident tərəfindən idarə olunur, baş nazir Prezidentə kömək edir və bütün inzibati idarələrə nəzarət edir, nazir isə müvafiq nazirliklərə rəhbərlik edir və onlara nəzarət edir və Milli Assambleyada qanunla müəyyən edilmiş məsələləri həyata keçirir.

Hökumət Təşkilatları Qanununa əsasən Koreya Respublikasının icra hakimiyyəti 19 departamentdən, 3 nazirlikdən və 19 idarədən ibarətdir. Milli İnsan Hüquqları Komissiyası və Yüksək vəzifəli dövlət məmurlarının cinayətlərinin araşdırılması idarəsi müstəqil qurumlardır.

Nazirlər Kabineti Konstitusiyaya əsasən vacib qurumdur və hökumətin səlahiyyətləri daxilində mühüm siyasətləri müzakirə edən icra hakimiyyətinin ən yüksək məşvərətçi orqanıdır. Bu iclasın sədri prezident, sədr müavini isə baş nazirdir. Bu iclasda iştirak edən şəxslər Dövlət Şurasının üzvləri adlanır və onlar Baş nazirin təqdimatı ilə Prezident tərəfindən təyin edilir. "Cənubi Koreyada prezidentliyə namizəd olmaq üçün parlament üzvü seçilmək hüququ olmalı və 40 yaşdan yuxarı vətəndaş olmalıdır" (Küçük, 2020, s. 27).

Dövlət Şurasının üzvləri Prezidentə kömək edir, dövlət işlərini müzakirə edir və Prezidentin səlahiyyətlərindən sui-istifadəsini məhdudlaşdırmaq funksiyasına malik olan departament səlahiyyətlərinə malikdirlər. Ona görə də bu agentlik Prezidentə bağlı bir qurum deyil, müstəqil konsensusa əsaslanan agentlikdir. Eyni zamanda, Dövlət Şurası da parlament sisteminin elementidir.

Hər bir inzibati idarənin rəhbərləri Baş nazirin təqdimatı ilə Dövlət Şurasının üzvləri arasından Prezident tərəfindən təyin edilir. Nəzarət və Təftiş Şurası konstitusiyaya uyğun olaraq tələb olunan bir qurumdur və konsensus institutudur. Nəzarət və Təftiş Şurası Prezidentə məxsus qurum olsa da, müstəqil qurumdur və Prezident onun vəzifələrinə qarışa bilməz. Nəzarət və Təftiş Şurası milli gəlirləri və xərcləri hesablamaq, mühasibat uçotunu yoxlamaq, habelə vəzifələri yoxlamaq səlahiyyətinə malikdir.

9 mart 2022-ci ildə Cənubi Koreyada aparıcı müxalifət olan Vətəndaş Qüvvələr Partiyasından prezidentliyə namizəd Yoon Suk-yeol seçkilərdə qalib gəldi və Cənubi Koreyanın yeni prezidenti seçildi (Cənubi Koreyanın..., 2022).

Koreya Respublikasının Konstitusiya Məhkəməsi

Koreyada məhkəmə sistemi məhkəmələr üzrə yurisdiksiyaya görə iki təşkilata bölünür. Birincisi, konstitusiya məhkəmələri istisna olmaqla, bütün işlərə baxan Koreya Respublikasının Məhkəməsidir və ən yüksək məhkəmə olaraq Koreya Respublikasının Ali Məhkəməsi var, ikincisi isə yeganə məhkəmə olan Koreya Respublikasının Konstitusiya Məhkəməsidir.

Koreya Respublikası Konstitusiya Məhkəməsi (대한민국 헌법재판소) Koreya Respublikasında əksər konstitusiya məhkəmələrinə nəzarət edən vahid məhkəmə və ən yüksək məhkəmədir və Konstitusiya Məhkəməsi Aktı əsasında təşkil olunur. Ali Məhkəmə bəzi konstitusiya məhkəmələrində ən yüksək instansiya məhkəməsinin qalan funksiyalarını bölüşür. Bu mövcud Konstitusiya Məhkəməsi sistemi 1987-ci ildə 6-cı Respublikada yenidən işlənmiş Konstitusiyaya əsasən 1988-ci ildə fəaliyyətə başlamışdır.

Koreya Respublikasının Konstitusiya Məhkəməsinin yurisdiksiyasında olan konstitusiya məhkəmələrinin növlərinə konstitusiyaya ziddiyyət üzrə məhkəmələr, impiçment məhkəmələri, siyasi partiyaların ləğvi üzrə məhkəmələr, hakimiyyət mübahisələri üzrə məhkəmələr və konstitusiya şikayəti üzrə məhkəmələr daxildir (헌법재판소 헌법재판 안내, 2022). Bəzi digər konstitusiya

məhkəmələri Koreya Respublikası Konstitusiyasının 107-ci maddəsinin 2-ci bəndinə uyğun olaraq Koreya Respublikasının məhkəmələri tərəfindən idarə olunur (대한민국헌법, 1988).

Koreya Respublikası Konstitusiyasının 103, 106-cı maddələrinin 1-ci bəndi və 112-ci maddəsinin 2-ci və 3-cü bəndləri Koreya Respublikasının məhkəmə sisteminin müstəqilliyini və onun üzvlərinin statusunun təhlükəsizliyini təsbit edir (대한민국헌법, 1988). Məhkəmə hakimiyyətinin müstəqilliyi fərdlər arasında mübahisələr üzrə məhkəmə araşdırmaları və ya dövlətin ayrı-ayrı şəxslər üzərində dövlət hakimiyyətini həyata keçirməsi yolu ilə hər bir şəxsin əsas hüquqlarına təminat verməklə qanunun aliliyinin həyata keçirilməsinin əsasını təşkil edir və hakimlərin statusuna təminat verir. Bununla belə, müasir Koreyada məhkəmə hakimiyyətinin müstəqilliyinin nə dərəcədə təmin olunduğu ilə bağlı mübahisələr mövcuddur.

Koreya Respublikasının məhkəmə sistemi tərəflərin iştirak etdiyi məhkəmə prosesləri əsasında məhkəmə funksiyalarına cavabdehdir və Koreya Respublikasının Konstitusiyasının təfsiri əsasında qərarlar qəbul etmək səlahiyyəti yalnız məhkəmə orqanlarındadır. Odur ki, Koreya Respublikasında müşavirə sistemi kimi məhkəmə orqanının üzvü olmayan şəxslərin qərarın nəticələrinə cəlb edilməsinə imkan verən sistem yoxdur. Məhkəmə müşavirəsinin metodu işin növündən asılı olaraq "ex parte" (bütün tərəflərin iştirakını tələb etmədən hakimin qərar verməsi) və ex officio (hakim heç bir tələb olmadan öz qərarını verir) prinsiplərinin qarışığıdır. Hətta cinayət mühakimələrində ex parte institusional elementi kimi prokurorlar məhkəmə sisteminin bir hissəsi deyillər.

Koreya Respublikasının seçki sistemləri və siyasi partiyaları

Hazırda Koreyada milli məclis seçkiləri, prezident seçkiləri və yerli seçkilər vaxtaşırı keçirilir. Seçkilərin keçirilmə səbəbindən asılı olaraq müddətin başa çatması ilə əlaqədar ümumi seçkilərə, seçkilərin etibarsız sayılması qərarı əsasında təkrar seçkilərə bölünə bilər. Koreya Respublikasında Prezident 5 il müddətinə seçilir, seçki müddəti 23 gündür, Prezidentin yenidən təyin olunması qadağandır. Milli Assambleyanın üzvləri 4 il müddətinə seçilir, seçki müddəti isə 14 gündür (공직선거제도, 2017)

2004-cü ildə keçirilən 17-ci ümumi seçkidən bəri Koreyanın hazırkı Milli Assambleyasına seçki sistemi mövcud birmandatlı dairə sistemini partiya siyahısına uyğun proporsional təmsilçilik sistemi ilə birləşdirir Müvafiq olaraq, seçicilər bir səs öz bölgələrinə, bir səs isə siyasi partiyaya verirlər. 20-ci Milli Assambleyada yerlərin sayı 300-dür, onlardan 47 yer partiya siyahısı ilə proporsional təmsilçilik sistemi ilə seçilən qanunvericilərə, qalan 253 yer isə yerli dairələrdən seçilmiş nümayəndələrə verilir. Dairələrə münasibətdə bu, prezident sisteminə bənzər sadə çoxluqlu səsvermə sistemidir və partiya siyahısı tipli proporsional seçki sistemində isə yerlər yalnız səslərin 3%-dən çoxunu qazanmış partiyalara verilir. Ölkə daxilində və ya seçki dairəsində 5-dən çox mandata sahib olan partiyaların azlıq partiyalarının sıxlaşmasının qarşısını almaq üçün edir. Partiya siyahısı ilə proporsional təmsilçilik sistemi, 2001-ci ildə Konstitusiya Məhkəməsi tərəfindən proporsional nümayəndələrin dairə səsverməsi yolu ilə seçilməsi üsulunun konstitusiyaya zidd olduğu qərarından sonra 17-ci ümumi seçkidə tətbiq edilən yeni sistemdir.

Hazırda Koreyanın prezident seçkiləri sistemi bütün ölkəni bir region kimi qəbul edən sadə əksəriyyət təmsilçi sistemini qəbul edir. Lakin bir namizəd olduqda, namizəd ümumi seçicilərin üçdə birindən çoxunun səsini, ən çox səs toplamış iki və ya daha çox namizəd olduqda isə ən çox səs toplayan şəxs seçilməlidir. Milli Assambleyada səsvermə yolu ilə seçilir.

Koreyada yerli seçkilər yerli hökumət başçıları (regional və əsas) və yerli şura üzvləri (regional və əsas) üçün seçkilərə bölünə bilər. Bu seçkilər təkrar seçkilər və ya əlavə seçkilər olmadıqda, hər dörd ildən bir müəyyən tarixlərdə eyni vaxtda keçirilir. Birincisi, yerli hökumət başçısı seçkiləri birmandatlı dairə sisteminə əsaslanır. Yerli hökumət başçısı seçkiləri üçün namizədlər arasında xüsusi bələdiyyə sədrləri, böyük şəhər merləri, əyalət qubernatorları, muxtar dairələrin başçıları, merlər və mahal qubernatorları. Bu arada, yerli şura seçkilərində böyük şəhər şurası üzvləri üçün seçkilər (xüsusi şəhərlər, böyük şəhərlər, əyalət məclisləri) birmandatlı rayon sistemi əsasında aparılır, lakin əsas şura üzvləri üçün (muxtar rayon, şəhər, mahal şurası üzvləri) seçkilər əsas götürülür. 2006-cı il yerli seçkilərdən dəyişdirilmiş orta deputatlı dairə sistemi haqqında. 2006-cı il yerli seçkilərdən bir çox başqa dəyişikliklər də var. Dəyişikliklərə nəzər salsanız, əksəriyyəti yerli şura seçkiləri ilə bağlıdır. Bunlara yerli şura üzvlərinin siyasi partiyalar tərəfindən namizədliyinin irəli sürülməsinə icazə

verilməsi, yerli şura üzvlərinin maaşlı olması (əvvəllər fəxri vəzifələr olub və rəsmi olaraq ödənişsiz) və yerli şura üzvləri üçün proporsional təmsilçilik sisteminin tətbiqi daxildir. Xüsusilə, yerli şuraların deputatları üçün proporsional təmsilçiliyin tətbiqi ilə əlaqədar bir nəfər 6 səs verə bilər.

Koreyada siyasi partiya dəstəyi regiondan asılı olaraq dəyişir. Bu tendensiya xüsusilə cənub bölgəsində kəskin şəkildə müşahidə olunur. Seul da daxil olmaqla, metropolitendə hər seçkidə ən çox dəstək alan partiya dəyişir. Siyasi partiyaların bəyənmə reytinqi regiondan olan siyasətçilərdən asılı olaraq dəyişir. Könsan-Namdo, xüsusilə Kimhe keçmiş prezident No Mu Hyonun doğulduğu bölgədir və Koreya Demokratik Partiyasının bəyənmə reytinqi nisbətən yüksəkdir. Bu həmişə belə deyildi və 1980-ci illərdən əvvəl Honam bölgəsində Pak Çon Hinin bəyənmə reytinqi yüksək idi.

2000-ci illərdən bəri seçici fəallığı aşağı olmuşdur və bu problemi aradan qaldırmaq üçün seçkilərdə iştirak kampaniyalarına başlamaq kimi müxtəlif yollarla səylər göstərilir.Tarixdə ən aşağı seçici fəallığı Li Myen Bak dövründə baş verdiyi halda, seçici fəallığı o vaxtdan bəri yenidən sürətlə yüksəlir. Koreya Respublikasındakı bütün siyasi partiyalar sosializm və kommunizmə əks mövqedə dayanıblar və bu mövqyie partiyaların ümumi cəhətləri kimi xarakterizə etmək olar.

Regionalizm müasir Koreya siyasətində ən mühüm münaqişə strukturu kimi seçilir. Deməli, prezidentlərin həmişə vurğuladıqları şey regionçuluğun aradan qaldırılmasıdır. Bu dağıdıcı regionçuluğa gəlincə, insanlar Yeonqnam və Honam arasında qədim zamanlardan bəri münaqişənin olduğunu və bugünkü regionçuluğun oradan qaynaqlandığını düşünürlər. Münaqişə strukturunun 1987-ci il prezident seçkilərindən başladığını söyləmək düzgündür. Bundan əvvəl də Koreyada konflikt quruluşu demokratik və antidemokratik idi. Buna misal olaraq, Busan-Masan üsyanı və 1971-ci il prezident seçkiləri zamanı Busan-Qyeonqnam bölgəsinin namizəd Kim De Çjunun səs faizini göstərmək olar. Hərbi üsyan yolu ilə uzunmüddətli diktaturaya malik olan Pak Çon Hinin tərəfdarları tərəfindən yaradılan Azadlıq Koreya Partiyası mühafizəkar bir partiyadır. Diktaturaya qarşı çıxan Kim De Çjun tərəfindən təmsil olunan demokratiya tərəfdarları mütərəqqi partiyalar adlanır.

Bir çox inkişaf etməkdə olan ölkələr kimi Cənubi Koreya da ikiqat yük daşıyır: bir tərəfdən demokratik sistemi təkmilləşdirməli, digər tərəfdən isə bürokratik aparatda islahatlar aparmalıdır. İlk baxışdan bu məqsədlər bir-birini istisna edən kimi görünür. Bununla belə, əhalinin geniş təbəqələrinin iştirakı üçün açıq olan və situasiyanın dəyişməsinə vaxtında reaksiya verən muxtar və effektiv idarəetmə sistemi yaratmaq üçün onları birləşdirməli, vahid bir bütöv halına gətirmək lazımdır (Донгсунг, 1997).

Ölkənin siyasi ideologiyasının faktiki obyektiv mühafizəkar və mütərəqqi dəyərlərdən bir qədər fərqli olduğu, bəzi situasiyalarda konkret siyasi partiyanın əks düşərgənin ideologiyasını və siyasətini dəstəklədiyi hallar açıq-aydın olur. Ancaq ölkəmizdə mövcud siyasi ideologiyanın tamamilə tərsinə çevrildiyini və ya sağa döndüyünü söyləmək çətindir. Keçmişdə planlı iqtisadi sistemə malik olan Pak Çon Hi hökumətinin mühafizəkar, Kim De Çjun və No Mu Hyonun administrasiyalarının isə mütərəqqi olaraq görülməsi, daha çox ideoloji bir mühakimə olduğunu söyləmək olar.

**Nəticə**

Cənubi Koreya dünyaya avtoritarizmi və iqtisadi geriliyi aradan qaldıran və son nəticədə Şərqi Asiyanın aparıcı iqtisadiyyatlarından birinə çevrilən ölkə kimi tanınır. Tarixən qısa müddət ərzində həyata keçirilən iqtisadiyyatın intensiv modernləşdirilməsi Koreya Respublikasına gəmiqayırma, elektrotexnika və avtomobil istehsalında dünya lideri olmağa imkan verdi. İqtisadiyyatda struktur dəyişiklikləri intensiv urbanizasiya, məktəb və ali təhsil sistemlərinin, səhiyyənin inkişafı ilə müşayiət olundu. Koreya öz görünüşünü sürətlə dəyişir, getdikcə daha az üçüncü dünya ölkəsinə bənzəyirdi. Qazanılan uğurlara baxmayaraq, XXI əsrin əvvəllərində ölkədə aşağı iqtisadi artım templəri, işsizliyin artması, əhalinin qocalması, ailə institutunun dəyişməsi ilə ifadə olunan ciddi sosial-iqtisadi böhran yaşanır. Digər məsələlərlə yanaşı, təhsil sistemində və siyasi sistemdə islahatlara ehtiyac var. Başqa sözlə, Cənubi Koreya post-sənaye iqtisadiyyatı və qloballaşma şəraitində ondan əvvəl yaranmış çağırışlara yeni formada cavab verməlidir.

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI**

Azərbaycan dilində

1.Hüseynova G. (2022). Şimali və Cənubi Koreyanın iqtisadi sisteminin oxşar və fərqli xüsusiyyətlərinin təhlili. "Elmi iş" beynəlxalq elmi jurnal. Cild 16, sayı 3, səh. 148-152.

2.Dong-Woo Cho. (2019). Güney Kore'nin Değişen Dış Politikası ve Güney Kore-AB STA'sına Liberal Hükümetlerarasıcı Bir Bakış. The Turkish Yearbook of International Relations, Volume 50, pp. 37-60.

3.Республика Корея. (2019). Государственное устройство Южной Кореи. https://bibliotekar.ru/3-1-31-2-pravovye-sistemy/15.htm

4.대한민국헌법. (1988). https://www.law.go.kr /%EB%B2%95%EB%A0% B9/%EB%8C%80%ED%95%9C%EB%AF%BC%EA%B5%AD%ED%97% 8C% EB%B2%95

5.Kore Gerçeği. (2011). Kore Kültür ve Enformasyon Ajansı. çev. Nana Lee, Kore, Kültür, Spor ve Turizm Bakanlığı, Seul.

6.Aydoğdu Y. (Temmuz 2017) Güney Kore'de uygulanan hükümet sistemi üzerine incelemeler. TAAD, Yıl:8, Sayı:31, 691-720 s.

7.Alkan, A. ve Çeliksoy, E. (2022). Türkiye ve Güney Kore Hükümet Sistemleri ve Kamu Yönetimlerinin Yönetim Bağlamında Karşılaştırılması. Çankırı Karatekin Üniversitesi. İktisadi ve İdari Bilimler Fakültesi Dergisi. Y. Cilt 12, Sayı 3, ss. 32-51.

8.Küçük, A. (2020). Güney Kore'de Kendine Özgü Demokratik Başkanlık Sistemi. Süleyman Demirel Üniversitesi Hukuk Fakültesi Dergisi, 9(2), 1-82.

9.Cənubi Koreyanın yeni prezidenti seçilib. (10.03.2022). https://azertag.az/xeber/cenubi_koreyanin_yeni_prezidenti_sechilib-2045456.

10.헌법재판소 헌법재판 안내. (2022). 2022년 2월 26일에 확인함.

11.공직선거제도, (2017). http://museum.nec.go.kr/ museum2018/sub/ 6/2/1/ 2017 1031145800854100_view.do

12.Донгсунг К. (1997). Южная Корея: какая инфраструктура обеспечит эффективное государственное управление. International Review of Administrative Sciences. - London,. - № 3, https:// vasilievaa. narod. ru/9_1_98.htm.

# VƏTƏN MÜHARİBƏSİ ZƏFƏRİNİN REGİONAL SİYASƏTİNƏ TƏSİRİ

**Nərgiz Mahmudova**
Bakı Slavyan Universiteti
nergizmahmudova99@gmail.com
Bakı, Azərbaycan
Rəyçi: dos.S.M.Axundova

**Xülasə**

Dağlıq Qarabağ problemi 20-ci əsrin sonlarında başlamışdır. Birinci Qarabağ müharibəsinin nəticəsi olaraq Azərbaycan torpaqlarının 20 faizi işğal olunsa da Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi və güclü ordumuz sayəsində Azərbaycan qələbə qazandı. Yüksək peşəkarlıq və döyüş əzmi göstərən ordumuz demək olar ki, Ermənistanın bütün hərbi potensialını darmadağın etdi və ya qənimət götürdü. Qələbə qazandığımız gün hər bir azərbaycanlı üçün elə bir an idi ki, bu sevincli anlar heç vaxt yaddaşlardan və tarixdən silinə bilməz. Zəfərin əldə edilməsində cəmiyyətdə milli birliyin olmasını, cəmiyyətin əsas məqsədlərin həllinə köklənməsi də böyük rol oynayır. Vətən müharibəsi göstərdi ki, torpaqlarımız uğruna lazım gəldikdə bütün ölkə vətəndaşları dinindən, məzhəbindən, inancından asılı olmayaraq "dəmir yumruq" kimi birləşə bilir.

**Summary**

The Nagorno-Karabakh problem started at the end of the 20th century. As a result of the First Karabakh War, 20 percent of Azerbaijan's lands were occupied, but thanks to the leadership of our Commander-in-Chief Ilham Aliyev and our strong army, Azerbaijan won. Our army, showing high professionalism and fighting determination, almost destroyed or captured all the military potential of Armenia. The day of our victory was such a moment for every Azerbaijani that these joyful moments can never be erased from memory and history. A great role in achieving victory is also played by the presence of national unity in society, the adaptation of society to the solution of the main goals. The Patriotic War showed that when necessary for the sake of our lands, all citizens of the country, regardless of religion, denomination and faith, can unite as an "iron fist".

**Açar sözlər: münaqişə, müharibə, zəfər,**
**Ключевые слова: конфликт, война, победа,**
**Key words:conflict, war, victory**

Giriş. Mövzunun aktuallığı. Dağlıq Qarabağ problemi 20-ci əsrin sonlarında baş vermişdir. 1992-1994-cü il birinci Qarabağ müharibəsinin nəticəsi olaraq Azərbaycan torpaqlarının 20 faizi işğal olundu. Dağlıq Qarabağ və ətraf rayonlar Ermənistan Respublikasının nəzarətə almaqla Azərbaycana hərbi təziq göstərməyə başladı. Azərbaycan buna cavab olaraq öz torpaqlarının müdafiəsinə başladı. Ermənistanın işğalı Qarabağ ərazisindən şıxaraq ətraf rayonlara da sirayət etməsinə gətirib çıxarməşdır. Bu müddət 30 il çəkdi və danışıqlar heç bir nəticə vermədi.

Sentyabrın 27-də başlanan Vətən müharibəsində dövlətçilik tariximizə qızıl hərflərlə yazılmış, igid oğullarımız düşmənə qarşı böyük qələbəyə nail olmuşlar. Zəfərə nail olmaqda Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin müdrik siyasəti, xalqımızın birliyi, şanlı ordumuzun cəsarəti bizim bu qələbəni qazanmağımızın əsas səbəbləridir.

Tədqiqat işinin strukturu. Mövzu giriş hissə, yarımfəsillər, nəticə və ədəbiyyat hissədən ibarətdir.

Tədqiqat metodu. Tədqiqat işi müqayisə,tarixi metodlarından istifadə edilərək işlənmişdir.

Vətən müharibəsinin başlaması. 30 illik danışıqlar Ermənistanın problemi mehriban qonşuluq münasibətləri və beynəlxalq hüquq əsasında həll etmək fikrində olmadığını göstərdi. Bu siyasətlə işğalşı ölkə vaxtı uzadır, problemin həllini mümkünsüz etməyə çalışırdı.

Sentyabrın 27-də səhər radələrində Ermənistan Silahlı qüvvələri kobud şəkildə atəşkəsi ciddi şəkildə pozmuşdur. Nəticədə Azərbaycanın mülki əhalisi arasında yaraıanan və həlak olanlar oldu. Bununla belə yaşayış binalarına , infrastrukturlara ciddi ziyan dəymişdir. Buna baxmayaraq xalqımız ruhdan düşməmiş, düşmənə laiqli cəzasını vermişdir.Həmin gün Ali Baş Komandan şıxış etmişdir. O, öz çıxı.ında bildirir ki " bu gün səhər tezdən Ermənistan silahlı qüvvələri Azərbaycana qarşı növbəti hərbi təxribat törətmişdir. Bu təxribat nəticəsində itkilərimiz var, həm mülki əhali , həm də hərbişilər arasında... Biz onlara 2016-cı ildə , 2018-ci ildə, bu ilin iyul ayında dərs verdik. Amma görünür ki, bu, onlar üçün dərs olmadı. ... Azərbaycan Ordusu bu hərbi təxribata cavab olaraq, hazırda əks-hücüm əməliyyatı keçirilir. ... Canlı qüvvəsinə və hərbi texnikasına böyük ziyan vurulmuşdur. Əks-hücum nəticəsində Azərbaycanın işğal altında olan bir neçə yaşayış məntəqəsi işğalşılardan azad edilib.... Biz özümüzü müdafiə edirik. ... və işğal edilmiş torpaqlarımızı işğaldan azad edəcəyik"

Azərbaycan öz ərazi bütövlüyünü güzəştə getmək fikrində olmadığını və problemi digər yolla həll etmək imkanında olduğunu 2020-ci ilin sentyabr- noyabr aylarında baş verən Vətən müharibəsində Zəfər ilə sübut etdi. Bununla tarixi ədalət də bərpa edildi. (Mirzəzadə, 2022) Azərbaycana qarşı hərbi təcavüzün nəticələrinin aradan qaldırılması 30 ilə yaxın davam edən danışıqlar prosesi nəticə verməmişdir.Sentyabrın 27-dən Ermənistan silahlı qüvvələrinin Azərbaycana qarşı təxribatları ilə başlayan və buna cavab olaraq Azərbaycan ordusunun keçirdiyi əks-hücum əməliyyatları nəticəsində Azərbaycan üçün yeni bir tarix yazıldı. 30 ilə yaxındır danışıqlar yolu ilə həllinə çalışdığımız haqq mübarizəmizi 45 gün içərisində hərb yolu ilə həll etdik. Budur şanlı, qürurlu Azərbaycan ordusu. Budur haqq mübarizəsi, Vətən müharibəsi. Bu müharibə sonda Azərbaycanın tam qələbəsi ilə nəticələndi və qızıl hərflərlə tarixə yazıldı. Ölkə başçısı İlham Əliyevin məqsədyönlü siyasətinin uğurlu nəticəsi olaraq 44 günlük Vətən müharibəsində Azərbaycan öz ərazi bütövlüyünü bərpa edərək tarixi zəfərə- böyük qələbəyə nail oldu. Müharibə başlayan andan Ali Baş Komandanın qətiyyəti, əzmli olması, zəfərə inamlı çağırışı insanlar arasında böyük ruh yüksəkliyinə səbəb oldu və dinindən, etnik mənsubiyyətindən, siyasi baxışlarından asılı olmayaraq bütün vətəndaşlarımızın güc və enerjisini

qələbəyə yönəltdi. Vətən müharibəsi göstərdi ki, torpaqlarımız uğruna lazım gəldikdə bütün ölkə vətəndaşları dinindən, məzhəbindən, inancından asılı olmayaraq "dəmir yumruq" kimi birləşə bilir.

Vətən müharibəsinin zəfərlə yekunlaşması. Zəfərin əldə edilməsində cəmiyyətdə milli birliyin olmasını, cəmiyyətin əsas məqsədlərin həllinə köklənməsi də böyük rol oynayır. 2020-ci ildə Azərbaycan xalqı üçün ən böyük uğur ərazi bütövlüyünə nail olması idi .Sentyabr ayının iyirmi yeddisi başlanan müharibə 44 gün davam edərək Ermənistanın məğlub olması və işğalçı siyasətinin sonlanması ilə nəticələndi.Azərbaycançılıq ideologiyası, birləşdirici dəyərlərin müəyyənləşdirilməsi, real tarix üzərində hərbi-vətənpərvərlik işinin qurulması Azərbaycanda ərazi bütövlüyü uğrunda ideyanı hər kəsin düşüncəsinə çevrilməsinə səbəb oldu. Xaricdən vətənpərvərliyə yad düşüncənin təbliğinə baxmayaraq, o cəmiyyətdə kök sala bilmədi. (Mirzəzadə, 2022)

Qədim tarixi keçmişə malik Azərbaycan xalqı və onun özünəməxsus cəmiyyətlər qovşağındakı geosiyasi mövqelərinin möhkəmlənməsi Azərbaycan Respublikasını XXI əsrin ilk onilliklərində özünü tam şəkildə sübut etmiş, regionun lider dövlətinə çevirdi. Azərbaycan xalqının ən böyük sərvətlərindən biri onun zəngin milli, mənəvi, mədəni, maddi, ədəbi, dövlətçilik irsinə sahib olmasıdır. Milli dövlətin formalaşmasında, güclü və hər zaman var olmasında onun mənəvi əsaslarının milli dəyərlərlə birləşməsi böyük əhəmiyyət kəsb edir. Hər bir xalqın, millətin mövcudluğu onun ana dilinə, adət-ənənələrinə, öz mədəniyyətinə, ədəbiyyatına, tarixinə bağlılığından irəli gəlir. Azərbaycan xalqı məhz milli-mənəvi dəyərlərinə dərin bağlılığı sayəsində özünün mövcudluğunu, milli özünəməxsusluğunu bu günədək güclü şəkildə qoruyub saxlaya bilmişdir.

Azərbaycanın uğurlu qələbəsi hərbi əməliyyatlar anlayışına yeni bir məzmun gətirdi. Ən müasir silahlardan, ilk növbədə, pilotsuz uçuş aparatlarının istifadəsi canlı qüvvə itkisini azaldır, düşmənin hərbi bölükləri arasında əlaqəni pozur. (Mirzəzadə, 2022) Bunun nəticəsində Azərbaycan bu müharibədə strateji üstünlüyü əldə etməyə nail oldu. Vətən müharibəsində xalqımız ümumi amalla birləşən misilsiz birlik və həmrəylik göstərərək qələbəyə nail oldu. Qələbədən sonra hazırda qarşıda duran vəzifə işğaldan azad edilmiş torpaqlarımızı bərpa etmək, abadlıq işləri aparmaqdır. İlk növbədə buraya işğaldan azad olunmuş ərazilərimizin minalardan təmizlənməsi aid edilir.

Prezident İlham Əliyev Bakıda Hərbi Qənimətlər Parkının açılışında vurğulamışdır: "Dünya mətbuatında artıq dəfələrlə məlumat verilmişdir ki, dünyanın aparıcı ölkələri, o cümlədən Amerika Birləşmiş Ştatları, Böyük Britaniya, Almaniya və inkişaf etmiş digər ölkələr İkinci Qarabağ müharibəsinin bütün aspektlərini öyrənirlər. Öz ordularını müasir standartlara, müasir tələblərə uyğunlaşdırmaq istəyirlər. Biz nəinki XXI əsrin müharibəsini nümayiş etdirmişik, biz dünyada heç vaxt olmayan Qələbəni qazanmışıq. Çətin relyef şəraitində düşmənin bir neçə istehkamının qarşısında biz peşəkarlıq, məharət, güc, hərbi elm qoyduq və istədiyimizə nail olduq, düşməni torpaqlarımızdan qovduq. Biz inkişaf edərək torpaqlarımızı azad etdik. Çünki inkişaf bizim Qələbəmizin əsasıdır" . Şanlı Qələbənin şərəfinə 2020-ci il dekabrın 10-da "Azadlıq meydanı"nda möhtəşəm Zəfər Paradı, 2021-ci il iyunun 15-də – Milli Qurtuluş Günündə Şuşa Bəyannaməsinin imzalanması, Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın Qarabağ səfərində "Qarabağın Hava Qapısı"nın açılması və mayın 14-də Türkiyənin həyata keçirdiyi möhtəşəm layihənin – dəniz üzərində inşa edilən nəhəng Rizə-Artvin Hava Limanının açılışı zamanı iki qardaş lider – İlham Əliyevlə Rəcəb Tayyib Ərdoğanın Azərbaycan və Türkiyə qardaşlığının möhtəşəmliyini bütün dünya bir daha tanıdı. Rəcəb Tayyib Ərdoğanın İlham Əliyevlə ölkəmizin həm çətin anlarında, həm də sevincli anlarında birgə dayanması xalqlarımızın qardaşlığını bir daha bütün dünyaya nümayiş etdirdi. Şuşa şəhərində Türkiyə ilə Azərbaycan arasında birgə bəyannamənin imzalanması bizim əlaqələrimizi müttəfiqlik səviyyəsinə çatdırdı: "Biz həm dostuq, həm qardaşıq, həm də artıq rəsmən müttəfiqik. Bu siyasət bizə atalarımızdan qalan mirasdır, atalarımızın vəsiyyətidir və biz bu vəsiyyətə sadiqik". Cənab Prezident İlham Əliyev öz çıxışında bəyan etdi: "Mən 2003-cü ildə Prezident vəzifəsinə seçiləndə Konstitusiyamıza və müqəddəs Qurani-Kərimə əl basaraq and içmişdim ki, Azərbaycanın ərazi bütövlüyünü qoruyacağam. Bu gün böyük qürur hissi ilə deyə bilərəm ki, Azərbaycan öz istədiyinə nail oldu, tarixi ədaləti, beynəlxalq hüququ bərpa etdi. Bu 44 günün hər günü bizim şanlı tariximizdir, hər gün Azərbaycan irəli gedirdi. Bu 44 gün ərzində bir gün də olmamışdır ki, biz geri çəkilək. Biz Ermənistanın 30 ilə yaxın müddət ərzində qurduğu istehkamları yararaq keçmişik". Qarabağda qazanılmış böyük tarixi zəfər Prezident İlham Əliyevin simasında qalib gələn Ali Baş Komandan olmağın böyük isbatıdır. Vətən müharibəsində qeyri-adi qəhrəmanlıqlar göstərmiş Azərbaycanın

şərəfli əsgərlərinin nümayiş etdirdikləri vətənpərvərlik, igidlik və şücaət Azərbaycanın yeni mərhələsinin gerçəkliyidir.

Regional siyasətə təsiri. 44 günlük Vətən müharibəsində qazanılan Zəfərdən sonra Cənubi Qafqaz regionunun iqtisadi-siyasi və strateji mənzərəsində bəzi dəyişiklikər yaranmışdır. Azərbaycan Respublikasının böyük qələbəsi, öz tarixi torpaqlarını işğaldan azad etməsi regionda qarşılıqlı əməkdaşlıq, Cənubi Qafqazın strateji əhəmiyyətinin artması üçün böyük imkanlar yaradıb. Zəngəzur dəhlizi Azərbaycan, Ermənistan, Orta Asiya, Sakit Okeandan Türkiyəyə birləşdirən mühüm sosial-iqtisadi, siyasi və geostrateji əhəmiyyətli dəhlizdir. Zəngəzur Azərbaycan, Rusiya, Türkiyə və Ermənistan arasında dəmir yolu şəbəkəsini genişləndirmək imkanı yaradaraq və regionun ticarət fəaliyyətinə, regionda ticarət dövriyyəsinin artımına, region ölkələri arasında, eləcə də bu ölkələrin digər dövlətlər ilə qarşılıqlı əməkdaşlığının inkişafına ciddi təkan verəcəkdir. Bütün bunlar həm də, müəllifi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev olan Zəngəzur dəhlizinə gələcəyin etibarlı barışıq (sülh) və iqtisadi inkişaf amili kimi yanaşmağa əsas verir.

Ali Baş Komandanımız İlham Əliyevin sözləri ilə desək: “Bildiyiniz kimi, Ermənistan tərəfi bu Zəngəzur dəhlizi ifadəsinə çox böyük qısqanclıqla yanaşır. Bilmirəm, nəyə görə? Amma deyə bilərəm ki, bu terminin - təvazökarlıqdan uzaq olsa da, - müəllifi mənəm. ....Biz bu dəhlizə, sadəcə olaraq, dəmir yolu kimi baxmırıq. Çünki bu dəhlizdən həm dəmir yolu keçəcək, həm avtomobil yolu keçəcək". Bu ifadələrlə həm dəhlizin nə qədər əhəmiyyətli olduğu bilinir, həm də onun hansı növ nəqliyyatlarla əhatə edəcəyini bildirir.

Zəngəzur dəhlizi Sakit okeandan Mərkəzi Asiyaya həmçinin Türkiyəyə, daşımalara imkan yaradacaq. Həmçinin Rusiya, Azərbaycan, Türkiyə, Ermənistan və İran arasında dəmir yolu şəbəkəsini genişləndirmək imkanı verəcək.

Müəyyən müddət ərzində İranla münasibətlərimiz gərginləşsə də hazırda yaxşılaşmağa doğru gedir. Diplomatik görüşlərimiz inkişaf etməyə başlamışdır.

Azərbaycan, Gürcüstan və Ermənistanı bir kənara qoysaq, Türkiyə, Rusiya və İran yalnız Zəngəzur dəhlizi vasitəsilə bir-biri ilə nəqliyyat-kommunikasiya əlaqəsi qura bilərlər. Digər halda, belə bir əlaqə sadəcə, mənasız hesab olunur.

**Nəticə.**

Zəfərin əldə edilməsində milli ruhun, birliyin olması əhəmiyyətli rol oynadı. Azərbaycançılıq ideologiyası, vətənpərvərlik işinin qurulması ərazi bütövlüyü uğrunda ideyanı hər kəsin düşüncəsinə çevrilməsinə səbəb oldu. Beynəlxalq hüquqa və mükəmməl hərbi strategiyaya əsaslanan əməliyyatlar nəticəsində Şanlı Azərbaycan Ordusu Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında düşmənə güclü zərbələr endirərək, torpaqlarımızı 30 illik işğaldan azad etdi və qələbə qazandı.İşğalçı ölkə Ermənistan isə kapitulyasiya aktını imzalayaraq məğlub halda geri çəkilməyə məcbur oldu. Beynəlxalq birlik Qarabağın Azərbaycanın ayrılmaz hissəsi və bizim qədim tarixi yurdumuz olduğunu qəbul etdi. Eyni zamanda, Azərbaycan Qərb üçün Orta Asiyaya geosiyasi “qapı" rolunu oynayır. Təsadüfi deyil ki, Qarabağdakı qələbədən sonra qardaş ölkə Türkiyə bu bölgədəki bütün sahələrdə öz mövqeyini fəal şəkildə gücləndirdi. Müharibə, Ermənistanın təhlükəsizlik və iqtisadi məsələlərdə Rusiyadan asılılığını daha da artırdı.

Beləliklə, Ermənistanla Azərbaycan arasında Dağlıq Qarabağ regionu və ona bitişik ərazilər uğrunda təxminən 44 gün davam edən müharibə Cənubi Qafqazda hərbi və siyasi sahələrdə dəyişikliklər gətirdi . Azərbaycan 44 gün ərzində yalnız hərb meydanında deyil, siyasətdə, diplomatiyada və informasiya mübarizəsində də böyük xariqələr yaratdı. Regionda yeni layihələrin, o cümlədən Naxçıvan üzərindən Aralıq və Xəzər dənizi hövzələrini birləşdirən yolun həyata keçirilməsi yeni inkişaf planları vəd edir. Azərbaycan Cənubi Qafqazda faktiki olaraq, siyasi maneələri qıraraq regionu əməkdaşlıq və təhlükəsizlik geosiyasi vəziyyətinə gətirdi. Bunun tarixi, siyasi, sosial, mədəni, iqtisadi və hərbi-strateji nəticələri ölkəmizin inkişafında özünü göstərməkdədir.

Biz həm cəbhədə – döyüş meydanında, həm də siyasi, ideoloji və diplomatik müstəvidə qalib gəldik. Ölkəmizə qarşı çevrilən məkrli, gizli və aşkar Qərb siyasətinə, islam dininə, türkçülüyə olan qeyri-humanist münasibətə, nələrinsə müqabilində özlərini ermənilərdən asılı hala çevirən siyasətçilərə, bizim haqlı mövqeyimizə səssiz qalanlara qalib gəldik.

**Ədəbiyyat siyahısı:**

1.Mirzəzadə A.Vətən Müharibəsinin Tarixi Siyasi Dərsləri -Bakı Azərbaycan Nəşriyyatı MMC(2022) №05,-s 88-89

2.Məmmədov S., Məmmədov T. -2018 Dağlıq Qarabağ Həqiqətləri və Beynəlxalq Hüquq Bakı – Mütərcim-2018 (Protokol № 02)-s 16-20

3. Akhundova S.M. Historical Significance of Returning Legal Lands to Azerbaijan. Between idea and practice. An Asia Perspective.

Redaccia Naukowa,Torun, Poland 2022. s.32-63

4.Hümbətoğlu, B. 44 günün möcüzəsi: Dəmir yumruq /B.Hümbətoğlu.-Bakı: Şuşa nəşriyyatı,-2021.- 64 s.

# İNGİLTƏRƏDƏ SOSİOLOGİYANIN DÜNƏNİ VƏ BU GÜNÜ

**NƏRGİZ NƏSİROVA**
Sumqayıt Dövlət Universiteti
Fəlsəfə, sosiologiya və politologiya kafedrası,doktorant
nargiz917@gmail.com
Sumqayıt,Azərbaycan

**Xülasə.**

Məqalədə İngiltərədə sosiologiya elminin inkişaf tarixi və onun mərhələləri, keçmiş və müasir dövrdə sosiologiya sahəsi üzrə fəaliyyət göstərən alimlərin fikirləri təhlilləri, sosiologiyanın elm kimi formalaşmasında iştirak etmiş Britaniya sosioloji məktəbi və onun nümayəndələri barədə ətraflı məlumat verilmişdir. Eyni zamanda məqalədə İngiltərədə sosiologiyanın müxtəlif dövrlərinin - dirəniş dövrü, qəbuledilmə dövrü, sonuncu isə adaptasiya dövrü təhlil edilir. Tədqiqat işinin aparılmasında hal-hazırda sosiologiya elmində ABŞ və Qərbi Avropa sosioloji məktəblərinin üstünlük təşkil etməsi, milli sosioloji mərkəzlərin, birliklərin elmi araşdırmaların aparılmasında, təcrübəsinin artırılmasında rolunun böyük olmasını nəzərə alınmışdır.

Məqalənin sonu sosiologiyanın özünəməxsus intellektual və elmi fəaliyyətləri olan bir sahə olması, sosioloqların institusional olaraq daima dəstəyə və himayəyə ehtiyac olması ilə yekunlaşır. Məhz buna görə vurğulanır ki, müasir dövrümüzdə bu baxımdan sosiologiya sahəsi üzrə akademiyaların, tədqiqat institutlarının və universitetlərin inkişafı sosiologiya üçün hədəf nöqtələridir.

**Açar sözlər: sosioloji məktəb,sosial tədqiqatlar, tədqiqat mərkəzləri**

**SOCIOLOGY IN ENGLAND YESTERDAY AND TODAY**

**Summary.**

The article provides detailed information on the history of the development of the science of sociology in England and its stages, the analysis of the opinions of scientists working in the field of sociology in the past and the present, also, the British sociological school and its representatives who participated in the formation of sociology as a science. At the same time, the article analyzes different periods of sociology in England - the period of resistance, the period of acceptance, and the last period of adaptation. In the conduct of the research work, the predominance of the US and Western European sociological schools in sociology, and the great role of national sociological centers and associations in conducting scientific research and increasing their experience have been taken into account.

The end of the article concludes with the fact that sociology is a field with its own intellectual and scientific activities, sociologists need institutional support and patronage. That is why it is emphasized that the development of academies, research institutes and universities in the field of sociology in our modern era are the target points for sociology.

**Keywords: sociological school, social studies, research centers**

**Giriş.**

İngiltərədə sosiologiyanın inkişaf prosesini üç dövrə bölmək mümkündür. İlk dövr II dünya müharibəsinin sonunadək olan müddəti hesab etmək olar. Bu dövr sosiologiyaya akademik səviyyədə müəyyən şübhələrin olduğu və inkişafının zəif qiymətləndirildiyi bir dövr kimi tanınır. 2-ci dövrü II dünya müharibəsinin bitməsindən sonra amerikan təsiri ilə akademik səviyyədə geniş yayılmış dövrdür.Bu dövrü artıq sosiologiyanın qəbul olunması dövrü kimi qəbul edə bilərik. 3-cüsü isə 1960-cı illərin sonundan başlayaraq günümüzə qədər davam edən adaptasiya dövrü adlandırılır. Sosiologiyanın İngiltərədə inkişaf tarixinin arxa planında nələrin olduğunu nəzərdən keçirək.

E.Şills iddia edir ki, empirik sosiologiya İngiltərədə yaransa da, lakin başqa ölkələrdə inkişaf etmişdir. Alimin bu iddiası, sözsüz ki, 19-cu əsrdə İngiltərə reformistlərinin və dövlət məmurlarının vətəndaşlarla maraqlanması, sosial vəziyyətin statistik göstəricilərinin üzərində sistemli olaraq işləmələri ilə bağlıdır. (Lepenies,1988) Bununla yanaşı, əlbəttə ki, sosiologiyanın İngiltərədə inkişafında xüsusi rolu olan H.Spenserin də adını çəkməliyik. V.Lepenis demişdir ki, "Sosiologiya təbiətdən deyil, mədəniyyətdən doğur".(Williams, 2008) Bütün bunlar sosiologiyanın İngiltərədə yayılmasının tarixi səbəblərini göstərir. 1960-cı illərə qədər sosiologiya müxtəlif mübarizələrlə yadda qalmışdır. Elm olaraq zəif olması, ingilis cəmiyyətinin bu elmi qəbul etməməsi ilə bağlı prosesləri "dirəniş" dövrü adlandırmaq olar.

1903-cü ildə ilkin olaraq ingilis cəmiyyətində Sosioloji cəmiyyət (Sociological Society) yaranmışdır. Ancaq bu zamanlarda ingilis intellektualları arasında bu elm barədə anlayış mövcud deyildi, Liverpul və London School of Economics universitetlərindən başqa heç bir təhsil müəssisəssində bu elm tədris olunmurdu. Tədris prosesinə toxunarkən Britaniya sosioloji məktəbinin və onun nümayəndələrinin adlarını çəkmək vacibdir.

Sosioloji cəmiyyətin (Sociological Society) yaranmasından bir neçə il sonra Sosioloji baxış (Sociologial review) nəşr olunmağa, Amerika Sosioloji cəmiyyəti, Fransadakı Dürkheymçi qruplarla və bir neçə məşhur alman sosioloqu ilə əməkdaşlıq etməyə başlamışdır (Scott, 2010). Başlıca məqsədi isə, təbii ki, bu elmin əsas fənn olaraq təhsil müəssisələrində tədrisi olmuşdur. Sosiologiyanın bu dövrdə nə və nə üçün olması barədə müzakirələr isə üç fərqli iştirakçıların rəqabətinə səbəb olur: Eugenic məktəbi, Regional and Civics məktəbi və sonuncusu Etik məktəbidir (Halsey, 2010).

Eugenic məktəbinin məqsədi cəmiyyətin genetik olaraq sahib olduqlarının araşdırılması və avantajlı olan tərəflərinin insan keyfiyyətinin artırılmasına istiqamətləndirilməsidir. Adından da bəlli olduğu kimi, Regional and Civics məktəbi bölgə metodu ilə əlaqəlidir. Yəni, birinci məktəb təbii özəlliklə, digəri isə coğrafi ərazi ilə xarakterizə olunur. İngiltərədə sosiologiya üzrə ilk professor olan Leonard Hobhousun da çalışdığı Etik məktəbi isə fərdin təbiət və fiziki əhatəsi üzərində hakim olması ideyasına əsaslanır. Hər üç məktəb metodoloji olaraq metodlar və sosioloji təsəvvürlərə görə fərqlənir. Birinci məktəb statistik araşdırmalara, ikincisi regional bölünmələrə, sonuncusu isə fəlsəfəyə istinad edir. Beləliklə, hər üç məktəbin sosiologiyanın gələcəyi ilə bağlı müxtəlif gözləntiləri vardı (Scott, 2010).

Ingiltərədə akademik mərkəz sayılan Oxford və Cambridge Universitetlərində sosiologiyaya qarşı mövcud olan mənfi reaksiyalar, tələblər, həm sinfi, həm də zehni yanaşmalar bu elmin gələcəyinə uzun müddət mənfi təsir göstərmişdir. Şilsin sözlərinə görə, sosiologiya maraq, xəyal gücünə açıqlıq və yüksək intellektual bacarığı ilə yanaşı eyni zamanda xoş təşkilati himayə və dəstək tələb edir. Şilsin bu yanaşması amerikan sosioloqu C.Wright Millsin 1959-cu ildə nəşr etdirdiyi kitabda yazdığı "sosioloji təxəyyülün gücü" ifadəsindən ilham almışdır.(Mills,2000) Gündəlik həyatımızda yaşadıqlarımızlardan başlayaraq fərdi və toplu sintez şəkildə bir zəkaya, qəlbə və xəyal gücünə sahib olmaq sosiologiyanın təşkilati mühit inkişafının vacibliyini ortalığa qoyur.

Ümumilikdə, XX əsrin tarix elmi və ədəbiyyatlarında "gizli sosiologiya" funksiyası ideyası irəli sürüldüyünə görə bu ölkədə uzun müddət açıq sosiologiyaya ehtiyac olmuşdur. Martin Bulmer demişdir: "İngiltərə sosiologiyası uzun bir keçmişə və qısa bir tarixə sahibdir".

1950-ci illərə qədər elm olaraq sosiologiyanın qəbul edilməsində ümumilikdə bir soyuqluq, səthi yanaşma müşahidə olunurdusa, 50-ci illərdə ABŞ-ın artıq dünya liderliyini ələ keçirməsi ilə ingilis imperator gücünün zəifləməsi sosial idarəetmənin təşkilati şəkildə yenidən formalaşmasına təkan vermişdir.

Ikinci Dünya müharibəsindən sonra sosiologiyanın akademik olaraq sürətli inkişafının statistik göstəriciləri belədir: 1940-cı illərdə bakalavr səviyyəsində 200-ə qədər tələbə vardısa, 1967-ci ildə

onların sayı 3000-ə, 1971-ci ildə isə 4000-ə çatmışdır. Fənni tədris edən akademiklərin sayı isə 1960-cı illərdə 40 nəfər idisə, 1975-ci ildə 613 nəfər olaraq göstərilmişdir. (Halsey, 2004)

Akademik olaraq sosiologiyanın inkişafına dair araşdırmalarımıza görə, Böyük Britaniyanın sosial antropoloji məktəbini nümunə kimi göstərmək mümkündür.

Brtaniyada sosiologiyanın inkişafının özünəməxsusluğu ondan ibarətdir ki, bir sıra digər ölkələrdən fərqli olaraq, burada bəzi problemlər, sosial institutlar və münasibətlər sosiologiya ilə deyil, sosial antropologiya vasitəsilə daha məhsuldar və səmərəli öyrənilirdi. Britaniya XX əsrin əvvəllərində məhz bu sahədə dünya cəmiyyətşünaslığına bir sıra görkəmli şəxslər bəxş etmişdir. Buna nümunə olaraq Vestermarkın, Redkliff- Braunun və Malinovskinin adlarını çəkmək olar.

Demək olar ki, Britaniyada sosial antropologiya sosiologiyanın yerini tutsa da, lakin öz tədqiqat predmetini müstəmləkə sahəsinə keçirmişdi. Buna misal olaraq Malinovskinin müəllimi və sosiologiya kafedrasının müdiri olmuş Vestermarkın fəaliyyətini göztərmək olar. Qeyd etmək lazımdır ki, onun başlıca əsərləri antropologiyaya həsr olunmuşdur. Daha bir misal isə Kembricdə ilk sosiologiya professoru təyin edilmiş və ixtisasca antropoloq olan Con Barisdir.

Britaniya sosiologiyasının tanınmış tarixçisi C.Ramninin qeyd etdiyi kimi, təkamül, təkamül mərhələləri, tərəqqi, inkişaf anlayışlarının üstün rolu, çox ehtimal ki, ingilis tarixi inkişafının xarakterindən, hətta ikinci dünya müharibəsinin dağıda bilmədiyi sosial tədriciliyindən əmələ gəlmişdir. Digər tərəfdən sosial siniflər, sosial müharibə, imperializm, planlaşdırma və sosial mühəndislik anlayışları yalnız yaxın zamanlarda ciddi diqqəti cəlb etmişdir. Ölkədə sosial problemlər yarandıqca, onlar ənənəvi anlayışlar cədvəlinə yerləşdirilirdi. Bu da onunla izah edilirdi ki, digər ölkələrdə sosiologiyaya aid olan bir çox şeylər İngiltərədə antropologiyanın, politologiyanın, iqtisad elminin və yaxud psixologiyanın bir hissəsini təşkil edirdi.( Williams, 2009)

Martin Bulmer 1989-cu ildə yazdığı məqalədə sosiologiyanı bu cür təsvir edir: sosiologiya, akademik olaraq iki şeyi özündə əks etdirir: birincisi, cəmiyyətin təbiətini nəzəri olaraq qavramaq üçün sosial gerçəkliyin empirik olaraq araşdırılmasını tələb edir, ikincisi, sosial struktur barədə ümumi hökmlər irəli sürür (Bulmer,1989)

İngiltərə sosiologiyasında kəmiyyət araşdırmalarından daha çox keyfiyyət araşdırmaları diqqəti cəlb edir. Başqa ingilis sosioloqlarının araşdırmaları da Bulmerin araşdırmasına yaxındır. Belə ki, günümüzdə sosiologiyanın üç aspektinin olduğu bildirirlir. Bunlardan birincisi, keyfiyyət tədqiqatı üzərində dayanan sosiologiyanın elm və bir fənn olaraq qəbul edilməsidir. İkincisi, dövlət idarəçiliyi, müstəqil tədqiqat institutları, bir sözlə, sosial siyasətlər üzərində qurulmuş praktik sosiologiyadır. Sonunusu isə "öyrədilən sosiologiya", yəni, yüksək tədqiqat institutlarında sosiologiya ilə bağlı tədqiqatların, araşdırmaların aparılmasıdır. (Həsənov,2010)

**Nəticə.**

İngilis sosiologiyası ölkənin siyasi, sosial və iqtisadi strukturundakı dəyişikliklərlə yanaşı, beynəlxalq tələblər və təkmilləşdirmələrlə əlaqəli şəkildə institusional və nəzəri tərəflərdən enişli və yoxuşlu bir inkişaf dövrü keçmişdir. Lakin İkinci Dünya müharibəsinin sonuna qədər sosiologiya imperator elmi adlanan antropologiya və güclü formada qurulan iqtisad fənninin yanında özünə yer tapmamışdır. Buna səbəb isə sosiologiyanın yarandığı dövrün cəmiyyətdə hökm sürən xaos dövrü ilə üst-üstə düşməsi olmuşdur. Buna görə də digər qərb ölkələrinə nisbətən daha dayanıqlı sosial quruluşa malik olan İngiltərədə sosiologiyaya yanaşma tərzindəki qəbul etməmə və biganəlik münasibətlərini normal hesab etmək olar. Bu dövr dirəniş dövrü adlanır.

Müharibədən sonra dünyada liderliyin Atlantik Okeanının o biri tərəfinə keçməsi siyasi, eləcə də sosial elmlərə də təsir göstərmiş, İngiltərədə sosiologiya bir elm kimi inteqrasiya edərək universitetlərdə tədris olunmağa başlamışdır. 1980-ci illərdən sonra isə neoliberalların iqtisadi və siyasi sahədə yenidənqurma işlərini aparması sosiologiyaya vacib bir rol verdi, intellektual və teoretik olaraq sosiologiya mərkəzi yer tutdu. Bu dövr isə qəbuledilmə dövrü, sonuncu isə adaptasiya dövrü adlanır.

Tədqiqat işini bu sözlərlə tamamlamaq olar. Sosiologiya özünəməxsus intellektual və elmi fəaliyyətləri olan bir sahədir. Təbii ki, hələlik burada müəyyən boşluqlar da mövcuddur və buna görə də sosioloqların institusional olaraq daima dəstəyə və himayəyə ehtiyacı vardır. Müasir dövrümüzdə bu baxımdan akademiyalar, tədqiqat institutları və universitetlər sosiologiyanın inkişafı üçün hədəf nöqtələridir.

**Ədəbiyyat siyahısı**

1.R. Həsənov.Qərbi Avropada və ABŞ-da Sosiologiya tarixi. Dərslik.(2010) 576

2.C. Wright Mills.The sociological review in London.Oxford university press. (2000), 256

3.Halsey.The history of sociology in Britain. (2004),126

4.J. Scott.Diversity, Dominance and plurality in British Sociology, (2010). 52

5.M. Bulmer.Theory and Method in recent British sociology.the british journal of sociology.v.40.no.3. (1989), 393

6.W. Lepenies.Between literature and science. Rise of Sociology. Cambridge University Press. (1988),244

7.Williams "Does British Sociology count? Sociology students' attitudes toward quanitative methods". (2008) 1003-1021

# HEYDƏR ƏLİYEV AZƏRBAYCAN MULTİKULTURALİZMİNİN BANİSİDİR

**NİGAR MƏHƏRRƏMOVA**
Bakı Slavyan Universiteti
Magistratura\ Tarix
meherremovanigar4@gmail.com
AZƏRBAYCAN, BAKI

XÜLASƏ

Məqalədə Ulu Öndər Heydər Əliyevin Azərbaycançılığı dövlət siyasəti halına gətirməsi, həmçinin, ölkəmizdə multikulturalizmin dövlət siyasəti olmasından bəhs edilir. Qeyd olunur ki, Azərbaycanın müstəqilliyinin ilk illərində Azərbaycançılığın inkişafı multikultural mühit olmadan inkişaf edə bilməzdi. Heydər Əliyev multikultural ənənələrin qorunub saxlanılması, inkişaf etdirilməsi ilə multikulturalizm siyasətini yeni mərhələyə qaldırmışdır. Azərbaycan ərazisində yaşayan milli azlıqların mədəniyyətlərinin, tarixlərinin, dillərinin, dinlərinin qorunub saxlanmasının və inkişaf etdirilməsi məhz ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Çünki Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra Azərbaycanda yaşayan müxtəlif etnik mədəni və dini müxtəliflikl ərin nümayəndələri ilə bağlı qanunlar qəbul olunmuşdur. Ulu öndər Heydər Əliyev Azərbaycanda multikulturalizm siyasətinin əsasını qoymaqla, onu cəmiyyətin demokratik inkişafı üçün vacib hesab etmişdir. Heydər Əliyev mənşəyindən, irqindən, dilindən, dinindən asılı olmayaraq, hər bir Azərbaycan vətəndaşının bərabər hüquqlara malik olduğunu qeyd edirdi. Ümummilli liderimizin ən böyük tarixi xidmətlərindən biri də ondan ibarətdir ki, o, multikulturalizmi azərbaycançılıq ideyasının tərkib hissəsi kimi müəyyənləşdirmişdir. Beləliklə, multikulturalizm ideyalarının genişləndirilməsi, ənənələrinin qorunması və inkişaf etdirilməsi sahəsindəki təşəbbüsləri Azərbaycan multikulturalizminin siyasi banisinin Heydər Əliyevin olduğunu deməyə əsas verir.

AÇAR SÖZLƏR: Heydər Əliyev, azərbaycançılıq ideyaları, multikulturallıq

SUMMARY

HEYDAR ALIYEV IS THE FOUNDER OF AZERBAIJAN MULTICULTURALISM

The article talks about the Great Leader Heydar Aliyev making Azerbaijanism a state policy, and also that multiculturalism is a state policy in our country. It is noted that in the first years of Azerbaijan's independence, the development of Azerbaijanism could not develop without a multicultural environment. Heydar Aliyev raised the policy of multiculturalism to a new stage by preserving and developing multicultural traditions. The preservation and development of the cultures, histories, languages, and religions of the national minorities living in the territory of Azerbaijan is

connected with the name of national leader Heydar Aliyev. Because after Heydar Aliyev's return to power, laws were adopted regarding representatives of various ethnic, cultural and religious diversity living in Azerbaijan. The great leader Heydar Aliyev laid the foundation of the policy of multiculturalism in Azerbaijan and considered it important for the democratic development of the society. Heydar Aliyev noted that every citizen of Azerbaijan has equal rights, regardless of his origin, race, language, and religion. One of the greatest historical services of our national leader is that he defined multiculturalism as an integral part of the idea of Azerbaijanism. Thus, his initiatives in the field of expanding the ideas of multiculturalism, protecting and developing its traditions give reason to say that the political founder of Azerbaijani multiculturalism is Heydar Aliyev.

KEY WORDS: Heydar Aliyev, multiculturalism, ideas of Azerbaijanism

GİRİŞ

Ölkəmizdə müxtəlif millətlərə, dinlərə, adət və ənənələrə mənsub olan insanlar arasında tarixən mehriban münasibətlər mövcud olmuşdur. Müstəqillik illərində isə bu mühüm ənənə daha da gücləndirildi. Bu ənənəyə əsaslanan azərbaycançılıq ideyası Azərbaycanın müstəqilliyinin möhkəmlənməsində, dövlətçiliyimizin qüdrətlənməsində və dövlət quruculuğu prosesində mühüm rol oynamışdır.

1993-cü ildə ümummilli liderin uğurlarının kökündə məhz azərbaycançılıq ideyası dayanırdı. Həmin dövrdə respublikada etnik-dini qarşıdurmalar ayrı-ayrı bölgələrdə özünü daha qabarıq göstərirdi. Belə bir zamanda xalq dinindən və etnik bölgüsündən asılı olmayaraq Heydər Əliyevin azərbaycançılıq ideyası ətrafında birləşdi və bununla da ölkəni parçalamaq istəyən qüvvələr zərərsizləşdirildi. Heydər Əliyevin irəli sürdüyü dövlətçilik konsepsiyası Azərbaycanın tarixi ənənələrini və dəyərlərini özündə birləşdirən yeni bir inkişaf modeli idi. Heydər Əliyev hər şeydən öncə, insan hüquq və azadlıqlarının təminatı məsələsinə xüsusi diqqət yetirirdi. Tariximizin yuxarıda xatırlatdığımız çətin dövrlərində – 1993-cü ildə Heydər Əliyev bu ərazidə yaşayan digər millətlərin nümayəndələri ilə tez-tez görüşlər keçirir, onların yaşayış məntəqələrini ziyarət edir, onların tamhüquqlu Azərbaycan vətəndaşı olduqlarını anladırdı. O, etnik dini müxtəlifliklərin yeni müstəqil dövlətin möhkəmlənməsinə töhfə vermələrinə də hər cür şərait yaradırdı. Beləliklə, ölkəmizdə yaşayan bütün xalqlar birlikdə vahid Azərbaycan cəmiyyətini formalaşdırdılar. Heydər Əliyev dərk edirdi ki, Azərbaycan cəmiyyətinin stabil və davamlı inkişafı üçün etnik dini müxtəlifliklərə münasibətdə ayrı-seçkiliyə yol vermək olmaz. Heydər Əliyevin iştirakı ilə hazırlanmış və 1995-ci ildə qəbul olunmuş Konstitusiyada hər bir kəsin bərabər hüquqlara malik olması qeyd edilmişdir. Yəni, mənşəyindən, irqindən, dilindən, dinindən asılı olmayaq hamı bərabərdir, eyni hüquqlara malikdir. Ulu öndər multikulturalizm siyasətinin həyata keçirilməsini Azərbaycan dövlətinin inkişafı üçün vacib olduğunu əsaslandırırdı.

Məqalənin məqsədi azərbaycançılıq ideologiyasının meydana gəlməsi, həqiqi vəziyyəti və perspektivləri barədə tədqiqatlar aparmaq və təkliflər irəli sürməkdir.

Məqalənin aktuallığı. Hal-hazırkı dünyada qloballaşma prosesi bütün dünya ölkələrini ehtiva etməkdədir və belə bir halda isə millətlər ideoloji, iqtisadi, siyasi faktorlarla deyil, daha çox mədəni faktorlarla özünü təqdim etməkdədir. Bu isə dünyada mədəni multikulturalizm yaradır. Mədəni multikulturalizm isə onun tənzim olunmasını tələb edir. Məqalənin aktuallığı ondadır ki, bu məqalə beynəlxalq aləmdə və ölkə daxilində münasibətlərinin tənzimlənməsini əhatə edir.

Məqalənin praktiki əhəmiyyəti. Məqalədən bakalavr səviyyəsində oxuyan tələbələr, qeyd olunan mövzu üzrə tədqiqat aparanlar istifadə edə bilər.

Məqalənin metodologiyası. Məqalənin metodoloji əsasını ümumi elmi təhlil, sintez, sistemləşdirmə, ümumiləşdirmə kimi metodlar təşkil etmişdir.

Sovet dövründə Azərbaycan multikulturalizminin vəziyyəti. Bildiyimiz kimi, multikulturalizm Azərbaycanda tarix boyu formalaşmışdır, lakin sovet ideologiyasının hökmranlıq etdiyi illərdə o, kifayət qədər sistemsiz idi. Tolerantlıq, etnik mədəni və dini müxtəliflik Azərbaycan xalqını multikultural bir rejimin içinə daxil etməyə hazır idi.

Bütün əsas beynəlxalq aktorlar kimi Çin də 2017-ci ilin oktyabrında keçirilən referenduma və daha sonra Kataloniya hökumətinin müstəqillik elan etməsinə qarşı çıxıb. İspaniya hökumətinin ərazi bütövlüyünü qorumaq üçün gördüyü tədbirləri dəstəkləyən Pekin, məsələnin Aİ Parlamentinin gündəliyinə salınması üçün səy göstərib. Burada məqsəd Aİ-nin İspaniyanın Kataloniya separatçılarına qarşı güc tətbiqini qəbul etməsinə nail olmaq olun.

NATO-nun baş katibi Yens Stoltenberq İspaniyanın NATO təhlükəsizliyinə mühüm töhfələr verən sadiq müttəfiq olduğunu vurğulayaraq, Kataloniyanın müstəqillik probleminin İspaniyanın konstitusiya quruluşu çərçivəsində həll edilməsinin vacibliyini vurğulayıb.

Türkiyə Cümhuriyyəti Xarici İşlər Nazirliyi Kataloniyanın müstəqilliyini elan etməsindən sonra, "Ümid edirik ki, konstitusiya legitimliyi olmayan bu təktərəfli qərarda israr edilməyəcək və demokratiya nəzərə alınmaqla həll yolu tapılacaq. "Biz İspaniyanın ərazi bütövlüyünə və ispan xalqının iradəsinə hörməti əsas kimi görürük. Bəyanat çərçivəsində Türkiyənin İspaniya hökuməti və qurumlarının bu çətin prosesi aşacağına şübhə etmədiyi və onların bu istiqamətdəki səylərini dəstəklədiyi vurğulanıb

**Tədqiqatın metodu**

Tədqiqat işi zamanı, məntiq, təhlil, sintez və təsviri metodlardan istifadə olunmuşdur. Məqalə işində araşdırılan mövzu əsasən daha çox praktik sahəyə aid olduğundan müvafiq istiqamətdə elmi fəaliyyətin praktiki cəhətdən əsaslandırılması mühüm əhəmiyyət kəsb edir. Tədqiqat zamanı təhlil olunmuş məsələlər elmi dərsliklərdə, elmi məqalə və mühazirələrdə istifadə oluna bilər. Mövzunun yeniliyi, onun Azərbaycan tarix elminə, beynəlxalq münasibətlər, sosiologiya, hüquq elmləri üçün araşdırılması və gələcək təsirlərinin hesablanması olduqca əhəmiyyətli edən mövzulardandır.

**NƏTİCƏ**

2017-ci il oktyabrın 1-də keçirilən Kataloniya müstəqillik referendumundan sonra Kataloniya Parlamenti birtərəfli qaydada İspaniyadan müstəqillik elan etdikdən sonra bir çox dövlətlər məsələyə reaksiya verib. Katalonların müstəqillik elanının digər separatçı bölgələri də təşviq edəcəyi ehtimalı və buna görə də dövlətlərin ərazi bütövlüyünün və ərazi birliyinin pozulması ehtimalı məsələnin beynəlxalq aləmdə əks-səda doğurmasının ən mühüm səbəbi kimi göstərilə bilər. Məsələn, Çinin regiondan uzaq bir dövlət olmasına baxmayaraq, Kataloniyanın müstəqillik elan etməsi ilə bağlı mənfi rəy bildirməsi onun öz daxilindəki separatçı hərəkatlara bariz göstəricisi idi. Eynilə, Aİ öz daxilindəki digər separatçı hərəkatların yaşadıqları bölgədə inteqrasiyasına mane olacağını düşünərək bu müstəqillik qərarına qarşı çıxır və yalnız Kataloniyanı İspaniyanın bir hissəsi kimi tanıdığını bildirir.

ABŞ isə Kataloniyanın müstəqilliyinin domino effektinin qərbdəki tarazlığı dəyişəcəyi ehtimalını nəzərə alaraq, İspaniya daxilində Kataloniyanın mövqeyinin qorunub saxlanmasını istəyir. Türkiyə də öz sərhədləri daxilində kürd probleminə görə birtərəfli qaydada müstəqillik elan edən separatçı bölgəni tanımayaraq, İspaniya mərkəzi hökumətinin yanında olduğunu bildirir. Rusiyanın reaksiyasının digər dövlətlərdən fərqli olduğunu söyləmək mümkündür. Rusiya vəziyyətin Rusiyadan uzaq bir bölgədə baş verən bir hadisə olduğu üçün məsələ ilə bağlı uzaq mövqe nümayiş etdirir və məsələnin İspaniyanın daxili məsələsi olduğunu vurğulayır. Bu münasibətdən çıxış edərək demək olar ki, Rusiya qərbin öz daxili problemləri ilə mübarizə apardığını görmək istəyir və buna görə də Kataloniyanın müstəqillik elan etməsinə mənfi reaksiya vermir.

Bütün bunları nəzərə alaraq Kataloniyanın müstəqil olub, dünya dövlətləri tərəfindən tanınması çox çətin prosesdir. Katalonlara görə bu onların ən vacib insan haqqları, dünyaya görə isə bu seperatizmdir, Afrikada dərin yaralar qoyan, hər zaman Azərbaycana qarşı əks mövqe göstərən, ermənilərin seperatizminə səs çıxarmayan, hətta lazım gələndə dəstəkləyən Avropa, öz daxilindəki bir müstəqillik cəhdini elə yerindəcə boğdu. İkili standartlarını açıq şəkildə bütün dünyaya nümayiş etdirən Avropa, Katalonların müqəddəs hisslərinə hörmət etmədi.

**ƏDƏBIYYAT SIYAHISI**

1. AB Haber. Katalonya'nın bağımsızlık ilanına dünyadan ilk tepkiler.Bağımsızlık ilanı sonrası İspanya hükümeti, Katalonya parlamentosunu feshetti..(2017).

2. Aljazeera. World reacts as Catalonia calls for independence.

https://www.aljazeera.com/news/2017/10/world-reacts-catalonia-calls-independence-171027221353 642.html. (2017).

3. Broch i Huesa, Àlex Història de la literatura catalana (1. bas.). Barcelona: Enciclopedia Catalana – Primeraició. (2018).

4. Coates, C. "Spanish Regionalism and The European Union", Parliamentary Affairs. (1998).

5. Colomer, J. M. "The Venturous Bid for the Independence of Catalonia", Nationalities Papers. (2017).

6.Dewan, A., Cotovio V. & Clarke, H. Catalonia independence referendum: What just happened? (2017).https://edition.cnn.com/2017/10/02/europe/catalonia-independence-referendum-explainer/index.html.

7. Mix, Derek E. Spain and its relations with the United States: In brief. Congressional Research Service. (2018).

# VİTGENŞTEYNİN LİNQİVİSTİK FƏLSƏFƏSİ

**Rəhim Həsənov**
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin müəllimi,
AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitunun doktorantı
hesenli.82@inbox.ru
Bakı, Azərbaycan

**Xülasə**

Avstriya filosofu Lüdviq Vitgenşteyn XX əsrin ən nüfuzlu filosoflarından biridir. Onun tədqiqat sahələri əsasən məntiq, dil fəlsəfəsi, idrak fəlsəfəsi və riyaziyyat fəlsəfəsidir. Vitgenşteyn prototipi riyazi məntiq dili olan süni "ideal" dilin qurulması proqramını irəli sürdü. Filosof fəlsəfəni "dilin tənqidi" kimi başa düşürdü. Mütəfəkkir bilik strukturunun dünyanın quruluşuna proyeksiyası olan məntiqi atomizm təlimini inkişaf etdirmişdir.

Lüdviq Vitgenşteyn "Məntiqi-fəlsəfi traktat" (1921) və "Fəlsəfi tədqiqatlar" (1953) kimi sanballı əsərləri ilə XX əsrin intellektual dünyasına dərindən təsir edən bir filosof idi. Vitgenşteyn hesab edirdi ki, dil mahiyyətcə simvollar sistemidir və dilin strukturu dünyanın quruluşunu əks etdirir. Vitgenşteyn dilin istifadə üsullarına xüsusi diqqət yetirirdi. Vitgenşteyn məntiqi bir tərəfdən dünyanın quruluşunu, digər tərəfdən isə dilin quruluşunu müəyyən etmək üçün ilkin araşdırma və hazırlıq kimi görür. Vitgenşteynə görə, formal və texniki baxımdan məntiq empirik məzmuna malik olmayan və dünya hadisələri haqqında heç nə ifadə etməyən müddəa və qaydalardan ibarətdir. Bu baxımdan məntiq ontologiyanın yaranmasının əsas şərtidir və hər bir mümkün ontologiyanın əsasında dayanır. Vitgenşteyn üçün məntiqin əsaslarından qurulmuş məntiqi ontologiya nə dünyanın faktiki vəziyyətinin izahını, nə də dünyadakı hadisələrin təsvirini təklif edir. Dünyanın mövcud vəziyyətini izah edən modellər yaratmaq elmi nəzəriyyələrin, faktları təsvir etmək isə empirik müddəaların vəzifəsidir. Vitgenşteyn üçün məntiqin əsasları üzərində qurulan ontologiya dünyanın nə olduğunu deyil, onun quruluşunun necə olduğunu ortaya qoyur.

**Açar sözlər: Lüdviq Vitgenşteyn, dil fəlsəfəsi, linqivistik fəlsəfə, riyazi məntiq, dil oyunları.**

## WITTGENSTEIN'S LINGUISTIC PHILOSOPHY

**Summary**

Austrian philosopher Ludwig Wittgenstein is one of the most influential philosophers of the 20th century. His research areas are mainly logic, philosophy of language, philosophy of cognition and philosophy of mathematics. Wittgenstein proposed a program to construct an artificial "ideal" language, a prototype language of mathematical logic. The philosopher understood philosophy as "criticism of language". The thinker developed the doctrine of logical atomism, which is the projection of the structure of knowledge onto the structure of the world.

Ludwig Wittgenstein was a philosopher who had a profound influence on the intellectual world of the 20th century with such important works as Logical-Philosophical Treatise (1921) and Philosophical Investigations (1953). Wittgenstein believed that language is essentially a system of symbols and that the structure of language reflects the structure of the world. Wittgenstein paid special attention to the ways of using language. Wittgenstein sees logic as preliminary research and preparation for determining the structure of the world on the one hand, and the structure of language on the other. According to Wittgenstein, from a formal and technical point of view, logic consists of propositions and rules that have no empirical content and do not express anything about world events. From this point of view, logic is the basic condition for the creation of ontology and is the basis of every possible ontology. For Wittgenstein, a logical ontology built from the foundations of logic offers neither an explanation of the actual state of the world nor a description of the world's phenomena. It is the task of scientific theories to create models that explain the current state of the world, and to describe facts is the task of empirical statements. For Wittgenstein, ontology, based on the foundations of logic, reveals not what the world is, but how it is structured.

**Key words: Ludwig Wittgenstein, language philosophy, linguistic philosophy, mathematical logic, language games**.

**Giriş**

İşin aktuallığı və əhəmiyyəti. Vitgenşteynin fəlsəfəsinə həsr olunmuş tədqiqatların təhlili onun fəlsəfi yaradıcılığı ilə bağlı mühakimələrinin mövcudluğunu ortaya qoyur. Bu araşdırmada Vitgenşteynin linqivistik fəlsəfəsinin xüsusiyyətləri tədqiq edilmişdir. Vitgenşteyn konsepsiyasının öyrənilməsi müasir fəlsəfi fikrin mühüm xüsusisiyyətlərini müəyyənləşdirmək baxımından olduqca zəruri əhəmiyyət kəsb edir.

Tədqiqat işinə olan ehtiyac. Müasir dövrdə Vitgenşteynin fikirləri əsasən fəlsəfi müzakirələrin məzmununu və istiqamətini müəyyən edir və fəlsəfənin ənənəvi problemlərinin, o cümlədən riyaziyyatın fəlsəfi problemlərinin tənqidi şəkildə dərk edilməsi üçün metodoloji əsas rolunu oynayır.

Tədqiqat məqsədi. Bu işin məqsədi Vitgenşteynin fəlsəfəsini obyektiv şəkildə araşdırmaq, filosofun dil fəlsəfəsinin rasional izahını həyata keçirməkdir. Tədqiqat prosesində Vitgenşteynin əsərləri tədqiq edilmiş, linqivistik fəlsəfənin təhlilinə dair yerli və xarici elmi ədəbiyyatı öyrənmişdir

Tədqiqat işinin strukturu giriş, beş yarımfəsil, nəticə və xülasədən ibarətdir. Tədqiqatın sonunda istifadə olunan ədəbiyyat siyahısı təqdim edilmişdir.

Tədqiqatın nəzəri və metodoloji əsası. Tədqiqatın nəzəri əsasını Vitgenşteynin, eləcə də yerli və xarici müəlliflərin əsərləri təşkil edir. Tədqiqatın metodoloji əsasını dialektik təfəkkür prinsipləri, sistemli və müqayisəli tarixi yanaşmalar, struktur metodun elementləri və fenomenoloji metodologiya, metodoloji əsasını isə Vitgenşteynin fəlsəfi biliklərinin o cümlədən filosofun linqivistik fəlsəfənin mühüm xüsusiyyətlərini əks etdirən əsərləri təşkil edir.

Vitgenşteyn fəlsəfəsinin akademik mühitdə rolu

Lüdviq Vitgenşteyn 26 aprel 1889-cu ildə Avstriya-Macarıstan İmperiyasının ən məşhur və varlı ailələrindən birində dünyaya göz açmışdı. Avstraliya yazıçısı Kimberli Kornişin “Linzdən olan yəhudi” kitabında təqdim olunan versiyaya görə Vitgenşteyn Adolf Hitler ilə eyni məktəbdə və hətta eyni sinifdə oxuyub (Cornish, 1988). Vitgenşteyn mühəndislik məktəbini bitirib elmi dərəcə aldıqdan sonra riyaziyyatçı və filosof Betrand Rassell ilə tanış olur və onun əsərlərini oxumağa başladı. 1911-ci ildə Vitgenşteyn Kembricə getdi və Kembricdə Rasselin tələbəsi oldu. Riyaziyyatın fəlsəfi əsasları probleminə çevrilməsinə səbəb olan Qotlob Freqinin əsərləri ilə tanış oldu. Birinci Dünya Müharibəsi vaxtı qanlı döyüşlərdə iştrak edən Vitgenşteyn “Məntiqi-fəlsəfi traktat”nı cəbhə xəttində və hərbi əsirlər üçün olan düşərgədə yazdı (Wittgenstein, 2001). Kitab 1921-ci ildə alman, 1922-ci ildə isə

ingilis dilində nəşr edilmişdir. İkinci Dünya Müharibəsi zamanı London xəstəxanasında işləmək üçün akademik təhsilini yarımçıq qoyan Vitgenşteyn, yeni dil fəlsəfəsini əsaslı şəkildə inkişaf etdirdi. Bu dövrün əsas əsəri 1953-cü ildə ölümündən sonra nəşr olunan "Fəlsəfi tədqiqatlar" idi (Vitgenşteyn, 1998). Lüdviq Vitgenşteyn 29 aprel 1951-ci ildə Kembricdə vəfat etdi.

Vitgenşteynin fəlsəfi mövqeyi birmənalı və hərtərəfli izahs uyğun gəlmir, çünki o, fəlsəfi problemlərin həllində bütün nəzəriyyə və izahedici prosedurları rədd edirdi. Onun təklif etdiyi yeni fəlsəfə üsulu, şübhəsiz ki, ənənəvi fəlsəfəyə zidd idi. Vitgenşteyn ideyalarının əhəmiyyəti çox böyükdür, lakin onların şərhi olduca mürəkkəbdir. Onun fəlsəfi irsi haqqında rəylər əhəmiyyətli dərəcədə fərqlənir, dolayısı ilə Vitgenşteynin işinin miqyasını və dərinliyini təsdiqləyir. Onun ideyalarını fenomenologiyaya və hermenevtikaya, eləcə də dini fəlsəfəyə (xüsusən də Şərq) yaxınlaşdırmaq cəhdləri də məlumdur. Son illərdə Qərbdə onun geniş əlyazma irsindən çoxlu mətnlər nəşr olunub. Vitgenşteyn simpoziumları hər il Avstriyada (Kirxberq-on-Vexsel şəhərində) keçirilir, burada dünyanın hər yerindən filosof və elm adamları toplaşır.

Vitgenşteynə görə problemlər əsasən iki növdür. Bunlardan birincisi gündəlik təcrübə və ya elmi müşahidələrlə həll edilə bilən faktiki problemlərdir. İkincisi, faktları ifadə etməyimizə dair müşahidə ilə həll edilə bilən məna problemləridir. Məna məsələlərini reallığı müşahidə etməklə deyil, "reallığı təsvir etmək üçün istifadə etdiyimiz məntiqi qrammatika qaydaları", yəni yalnız "dildən istifadəni" təsvir edən "qrammatik təhlil" üsulu ilə həll edə bilərik (Gökhan, 2022, s.94).

Vitgenşteyn fəlsəfəsinin akademik mühitdə ona marağın artmasına səbəb olan xüsusiyyətlərindən biri onun müasir rasionalist dünyagörüşünə tənqidi münasibətidir. Görünür, bu, Vitgenşteynin mədəni mənaların elmi izahlarının məhdudluğuna və birtərəfliliyinə inamı, onun mədəni hadisələrin mənasının pozitivist şərhlərinin üstünlük təşkil etməsindən narazılığı və tədqiqatçıların çoxluluq ideyasına münasibəti ilə bağlıdır. Demək lazımdır ki, Vitgenşteynin yaratdığı "qeyri-klassik" fəlsəfə obrazı mütəfəkkirin müasir texnogen sivilizasiyaya mənfi münasibətinə daha çox işıq salır.

Vitgenşteyn ideyalarının mənası və onun müasir dünyada bir filosof kimi yeri ilə bağlı mübahisələr hələ də bitməyib. Vitgenşteyn dil və təfəkkür işinin insanların "həyat formaları" üzərində qurulduğunu, sözlərin müxtəlif situasiyalarda, mədəni kontekstlərdə istifadə üsullarının təsvirinin mənasını açıb, göstərə bilmişdir.

Dilçilik fəlsəfəsinin meydana gəlmə tarixi

Dilçilik fəlsəfəsinin ideyaları ilk dəfə 1930-cu illərdə L. Vitgenşteynin Kembric mühazirələrində ifadə edilmişdir. L.Vitgenşteyn hesab edirdi ki, fəlsəfənin məqsədi fikirləri məntiqi aydınlaşdırmaqdır. Filosofun fikrincə, müxtəlif növ psevdoproblemlərin (o cümlədən obyektiv reallıq probleminin) mənbəyi məhz dildir. Ona görə də fəlsəfənin predmeti biliyin ifadə üsulu kimi dil (ilk növbədə elmin dili) olmaqla yanaşı, bu biliklərin təhlili fəaliyyəti və dildə ifadə imkanları olmalıdır.

Linqvistik fəlsəfə analitik fəlsəfədə 1930-1960-cı illərdə ABŞ-da və Böyük Britaniyada geniş yayılmış bir cərəyandır (Грязнов, 2010). Artıq L. Vitgenşteyn "Məntiqi-fəlsəfi traktat"da (Vitgenşteyn, 2001) dil və dünyanın quruluşunun oxşarlığı, onların qarşılıqlı əlaqəsi məsələsini qaldırmışdı: dil dünyanın təsviridir, kölgəsidir, proyeksiyasıdır. Bu halda, "fakt" təbiət elmlərinin işlədiyi obyektiv reallığın mövcud məlumatları kimi başa düşülür. Dil idealı riyazi məntiqin simvolizmi elan edilir, fəlsəfənin məqsədi isə elm dilinin məntiqi təhlilidir. Traktat çap olunduğu dövrdə bu fikirlər irəli sürülmüş, müxtəlif elm sahələrində riyazi məntiqin və struktur tədqiqatlarının fəal inkişafına səbəb olmuşdur. L. Vitgenşteyn, təbii ki, birinci deyildi, bu saəhədə B. Rasseli, daha əvvəl isə Q. Leybnits və R. Dekartı xatırlatmaq kifayətdir. Lakin məhz L. Vitgenşteyn dilin quruluşu ilə dünyanın quruluşu arasında analogiyanı görməklə yanaşı, insanın dünyanı və dünyagörüşünü dərk etməsində dilin rolunu dərk edir.

Daha sonra ingilis "filosof-analitikləri"nin rəhbəri C. Mur və onun təsiri altında L. Vitgenşteyn məntiqi-riyazi simvolların süni dilinin təhlilindən canlı dilin məntiqi təhlilinə və digərlərinin məntiqi təhlilinə keçdilər. Onla öz məqsədlərini gündəlik nitqin "müalicəvi" təhlili kimi elan edirlər ki, bu da dilin "düzgün" istifadəsi nəticəsində yaranan insanlar arasında anlaşılmazlıqları və münaqişələri aradan qaldıracaq. C. Mur, L. Vitgenşteyn və onların davamçıları dilin insan şüuruna təhlükəli təsirini, onun "günahı" və "xəstəlikləri"ni insan səhvləri və süni problemlərin mənbəyi ilə müqayisə edirdilər.

Dil fəlsəfəsi

Dil fəlsəfə və ya linqvistik təhlil fəlsəfəsi 40-50-ci illərdə geniş yayılan analitik fəlsəfənin əsas istiqamətlərindən biridir. Dil fəlsəfəsinin iki məktəbi var idi: formalaşmasında bilavasitə L.

Vittgenşteyn tərəfindən dəstəklənən "Kembriç" və C. Murun fikirlərindən təsirlənən "Oksford". Ümumiyyətlə, dil və dünya Vitgenşteynin bütün fəlsəfəsinin mərkəzi anlayışlarıdır. Dil dünyanı əks etdirir, çünki dilin məntiqi quruluşu dünyanın ontoloji quruluşu ilə eynidir. Dünya əksər fəlsəfi sistemlərdə olduğu kimi obyektlərdən deyil, faktlardan ibarətdir. Dünya bütün mövcud faktlar toplusunu təmsil edir, bu faktlar sadə və ya mürəkkəb ola bilər. Obyektlər faktlar yaratmaq üçün qarşılıqlı əlaqədə olan şeylərdir. Obyektlərin məntiqi forması var, bu müəyyən əlaqələrə girməyə imkan verən xüsusiyyətlər toplusundan ibarətdir.

Vitgenşteyn üçün dünyanın sərhədləri dilin sərhədləridir, dilin müddəaları isə dünya obyektlərinə istinad edir. Dilin dünya cisimləri haqqında danışan müddəalardan qurulması əsas müddəalar dünyasının sərhədləri daxilindədir. Faktual dil dünyanın sərhədləridir, dünya obyektlərindən danışır. Vitgenşteyn üçün dünya haqqında danışmaq imkanı faktik dilin mümkünlüyündə ortaya çıxır. Dünya haqqında faktiki dil imkanından kənar heç nə demək olmaz (Çakmak, 2013, s.145).

Dildə sadə faktlar sadə cümlələrlə təsvir olunur. Onlar adlar deyil, ən sadə dil vahidləridir. Mürəkkəb cümlələr mürəkkəb faktlara uyğun gəlir. Bütün dil dünyadakı hər şeyin, yəni bütün faktların tam təsviridir. Dil həm də mümkün faktların təsvirinə imkan verir. Bu şəkildə təqdim olunan dil tamamilə məntiq qanunlarına tabedir. "Vitgenşteyn hesab edir ki, dil reallığın özü ilə bağlıdır, dilin mənimsənilməsi əlamətlərin məntiqi istifadəsini nəzərdə tutur. Məntiqi forma dilin əsasında durur, mənanı təmin edir və dünya ilə dil arasındakı əlaqə əvvəlcədən qurulmuş harmoniya ilə xarekterizə olunur" (Лэброн, 2019, s.115).

Vitgenşteynin yeni fəlsəfəsi nəzəriyyədən daha çox metod və təcrübələr toplusudur. Vitgenşteynin fikirləri ilk növbədə Oksford və Kembricdə öz tərəfdarlarını tapdı. Vitgenşteyn həm ontologiyaya, həm də klassik epistemologiyaya qarşı idi. Çünki Vitgenşteynə görə həm ontoloji, həm də qnoseoloji yanaşmalar esansizmdir. Essensializm isə "həyat formalarının" sonsuz müxtəlifliyini bir mahiyyət və ya sistemlə məhdudlaşdırır, bu isə reduksionizmdən başqa bir şey deyil. Vitgenşteyn faktları və diskursları təsnif etmir və tipikləşdirmir; metaforalarla izah edir və ya təsvir edirdi. (Özcan 2018: 159)

Lüdviq Vitgenşteyn ötən əsrin böyük mütəfəkkirlərindən biridir, eyni zamanda onun fəlsəfi irsi müasir fəlsəfənin inkişaf vektorunu müəyyən etməkdə davam edir. Vitgenşteyn bütün həyatı boyu dil və dünya arasındakı əlaqə problemi ilə daim maraqlanırdı. İlk əlyazmalarında o, dünyanın dildə necə təmsil olunduğu sualına dəfələrlə müraciət etmişdir (Талалаева, 2018, s.149).

Vitgenşteyn baxımından dil bütün xüsusiyyətləri, forma müxtəlifliyi, istifadə üsulları ilə bəlkə də insanın ən görkəmli mədəni yaradıcılığıdır. Dil inkişaf etmiş insanın həyat tərzinin mədəni və mənəvi ifadəsini təmin edir. Dildə təbiət və ruh birləşir. Bu baxımdan dil onda yaranan və müşahidə edilən sözlərdən istifadə üsulları ilə mədəni təcrübələri dərin keçmişə gedən və bizi əvvəlki nəsillərlə birləşdirən ifadə vasitəsidir. Dil bizə bir çox əsrlər boyu üzvi şəkildə inkişaf etmiş mədəni nailiyyətlər təqdim edir. Buna görə də dil insanları mənəvi cəhətdən birləşdirir, bəşəriyyətin həyat prosesinin müəyyənləşdirilməsinə də güclü təsir göstərir. Vitgenşteyn insanın mədəni varlıq olduğunu, əsl mədəniyyətin mexaniki və süni deyil, üzvi olduğunu xatırladır. Beləliklə, Vitgenşteyn insan və mədəniyyət haqqında anlayışımızı dərinləşdirdi. "Vitgenşteynə görə sözlərin və ifadələrin müxtəlif kontekstə əsasən dəyişməsidir. Onun fikrincə, insanlar ünsiyyətə girərkən, ilk baxışdan göründüyü kimi, təkcə sadə cümlələrdən istifadə etmirlər, eyni zamanda əmr, xahiş edir, elə bil teatrda oynayır, təşəkkür edir, bəzən hətta lənətləyir və s." (Hacıyeva, 2018, s.3)

Filosofla digər insanlar arasındakı fərq onun həqiqəti bilməsində, başqaları üçün əlçatmaz olmasında deyil, onun axtarışı ilə peşəkarcasına məşğul olmasında, adi insanın nəzərindən gizlədilən mənəvi dünyanın sirlərini təhlil edərək aydınlaşdırmasındadır. O, sanki gündəlik problemləri başqa dilə tərcümə edir, onları daha aydınlaşdırmaq üçün tamam başqa səviyyəyə çatır. Qeyd etmək lazımdır ki, dil, prinsipcə, müasir fəlsəfənin yaxından diqqətinin predmetinə çevrilir. Axı bu gün fəlsəfi problemlərə linqvistik problemlər kimi geniş baxış bucağı var. Buna görə də onların həlli daha dəqiq söz və ifadələrdən istifadə etməkdədir. Məhz buna görə də müasir fəlsəfədə dil və şüurun qarşılıqlı əlaqəsi, mətnin təfsiri, son nəticədə insanlar arasında ünsiyyət və qarşılıqlı anlaşma problemlərinin əhəmiyyəti kəskin şəkildə artmışdır.

Dil elmi biliyin təbii vasitəçisidir ki, bu da əslində iki əsas problem yaradır. Birincisi, ontologiyanın əksinə çevrilə bilən neytral, fərdi supra-fərdi dil yaratmaq istəyidir. İkincisi, dilin "dərin məntiqi" deyilən, qrammatika qanunlarından asılı olmayan müəyyən bir mütləqliyi tapmaqdır. Dilin

dərk edilməsinə və təhlilinə xüsusi diqqət yetirilməsi analitik fəlsəfə üçün xarakterikdir. Bu tendensiya neopozitivizmin nailiyyətlərinə əsaslanır. Öz növbəsində neopozitivizm öz inkişafında bir sıra mərhələlərdən keçmişdir. Birinci mərhələ iki başlanğıc nöqtəsinə əsaslanan məntiqi pozitivizmdir. Birincisi: biliklərimiz obyektiv dünyaya deyil, onlar haqqında müşahidələrə, təcrübələrə və ya ifadələrə aiddir. Buna əsaslanaraq elmin nəzəri müddəalarını elementar empirik müddəalara qədər endirmək olar. İkincisi: elmi biliklərə iki növ ifadə daxildir. Birinci növ yeni məlumat daşımayan analitik və ya məntiqi-riyazidir. İkinci mərhələ linqvistik pozitivizm, yaxud aşağıda ətraflı nəzərdən keçirəcəyimiz linqvistik fəlsəfə idi. Üçüncü mərhələ postpozitivizmdir. Onun nümayəndələri müəyyən bir dilin yarandığı və inkişaf etdiyi tarixi-mədəni mühitin öyrənilməsinin zəruriliyini başa düşürlər. Beləliklə, onlar əvvəlcə imtina etdikləri fəlsəfənin ənənəvi dünyagörüşü məsələlərinə yenidən yanaşırlar.

Analitik fəlsəfədə dilin təhlili

Analitik fəlsəfə çərçivəsində dilin təhlilinə iki mümkün yanaşma öz icrasını tapmışdır. Birinci yanaşmanın nümayəndələri (B. Rassel, A. Vaythed, C. Mur, N. Şlik) səylərini dilin məntiqi təhlilinə yönəldir, öz vəzifəsini son nəticədə onun islahatını həyata keçirmək, məntiqi ziddiyyətləri və qeyri-müəyyənlikləri bir o qədər də aradan qaldırmaqda görürdülər. İkinci yanaşmanın, yəni dil fəlsəfəsinin nümayəndələri öz vəzifəsini islahatlar aparmaqda deyil, düzgün olmayan istifadədən yaranan anlaşılmazlıqları aradan qaldırmaq üçün dilin real, gündəlik istifadəsini diqqətlə təhlil etməkdə görürdülər.

Filosoflar və məntiqçilər təbii dilin ilkin natamamlığının, eləcə də düzgün istifadə edilməməsinin məntiqi xətalara gətirib çıxardığına dəfələrlə diqqət çəkmiş, ondan ehtiyatla istifadə etməyə çağırmışlar. Onlardan ən radikalı (Q. Leybnits, B. Rassel) belə çatışmazlıqlardan məhrum olan süni dilin yaradılmasını tələb edirdi.

Fəlsəfənin məntiqi təhlili kimi müxtəlif analitik fəlsəfənin nümayəndələrindən fərqli olaraq, linqvistik fəlsəfənin tərəfdarları filosofun vəzifəsini dili müəyyən məntiqi normaya çatdırmaq üçün islahat aparmaqda görürlər. Təbii danışıq dilinin mövcud istifadəsinin ətraflı təhlili sözlərin düzgün istifadə edilməməsindən yaranan qeyri-müəyyənlikləri aradan qaldırır.

L. Vitgenşteyn "Fəlsəfi tədqiqatlat" əsərində dili dəfələrlə insanı illüziyalarla əsir saxlayan düşmənlə müqayisə edirdi. Fəlsəfə dilimizin vasitəsi ilə ağlımızın sehrinə qarşı döyüşdür. Fəlsəfənin nəticəsi dilin hüdudları ilə qarşılaşma, anlama prosesində aldığımız sadə cəfəngiyyatın və aşınmaların müəyyən təzahürlərinin kəşfidir. Məhz aşınmalar bizi edilən kəşflərin əhəmiyyətinə inandırır.

Bu fikirlərə görə, dil o qədər inanılmaz dərəcədə mürəkkəb və o qədər müxtəlif üsullarla istifadə olunan bir sistemdir ki, onu öyrənmək üçün sonsuz sayda üsullar onun mahiyyətini ortaya qoya bilmir. İnsan ancaq bu mahiyyəti dərk etməyə, yəni dilin gündəlik təcrübə ekranında gizlənən "dərin", "real" mənasına nüfuz etməyə çalışa bilər. Bu istək varlığın sadə mənzərəsini çəkmək, bütün məlum hadisələri əhatə edən və izah edən sadə model qurmaq istəyən filosofa xasdır.

L. Vitgenşteynin mülahizələrinə görə, həqiqi fəlsəfi problemlərin spesifikliyi ondan ibarətdir ki, onları nə riyazi, nə də empirik üsullarla həll etmək olmaz. Ona görə də onları həll etmək üçün ideal dil yaratmağa çalışmağın mənası yoxdur. Səbəb odur ki, insan nəzəri olaraq ona məlum olan faktların şəklini vahid bir kətanda qurmağa çalışdıqda ortaya çətinliklər çıxır. Eyni zamanda insan yeni kəşflər etməyə, yəni elmi töhfə verməyə can atmır. Mövcud faktları elə sistemləşdirməyə çalışır ki, onun üçün məna kəsb etsin. Başqa sözlə, o, dünyanın quruluşu və varlığının ümumi izahını tapmağa çalışır. Ancaq bu fəaliyyətin nəticələri çox vaxt sağlam düşüncəyə zidd olan bəyanatlardır. L. Vitgenşteynin fikrincə, düşünən insan bu intellektual çaşqınlıqla gündəlik dildən istifadə zamanı qarışılaşır. Bu və ya digər şəkildə o, sözlərin qəbul edilmiş istifadəsinin sərhədlərini tədricən itələyir, bu da onların mənasını əhəmiyyətli dərəcədə dəyişir. Ola bilsin ki, sonradan o, bu sözləri vərdişlə işlətməsinin həqiqətən düzgün olduğuna şübhə etməyə başlayacaq. Bu baş verdikdə, təsvir olunan "çətinliklər"" başlayacaq. Bu vəziyyətdən çıxmaq üçün əsas terminlərin adi, düzgün istifadəsinə qayıtmaq və onlardan öz fəaliyyətlərində yanlış istifadə etməklə insanın özünü bu konseptual çaşqınlığa necə tanıtdığını göstərmək lazımdır.

Dil oyunları

Dil oyunu dili ünsiyyətdə əməl olunan şərti qaydalar sistemi kimi təsvir etmək üçün 1953-cü ildə Lüdviq Vitgenşteyn tərəfindən təqdim edilmiş fəlsəfi anlayışdır. Dil oyunu onun ibtidai dillərin istifadəsinə və bu dillərin toxunduğu fəaliyyətlərə dair verdiyi nümunələrə istinad edir. Vitgenşteyn

iddia edirdi ki, bir söz və ya cümlə yalnız indiki oyunun qaydalarına əsaslanaraq müəyyən məna daşıyır. Dil oyunu anlayışı metadil anlayışını əvəz edir (Языковая игра в речевой деятельности. 2021).

L. Vitgenşteynə görə, onların səbəblərini analiz etməklə fəlsəfəni konseptual səhvlərdən azad etməkdir. "Fəlsəfi tədqiqatlar" əsərində o, istənilən nəticəni əldə etməyin müxtəlif yollarını təklif edir. Müəyyən terminlərin düzgün istifadə qaydalarını başa düşmək funksional baxımdan şahmat oyununun necə mənimsənilməsinə bənzəyir. Filosofların ən adi ifadələrin mənasını necə təhrif etdiyini aydın şəkildə nümayiş etdirmək üçün L. Vitgenşteyn müxtəlif dil oyunları hazırlayır və göstərir ki, bu ifadələrdən istifadənin əsl qaydaları onların bizə icazə verdiyi və ya icazə vermədiyi şeylərdən ibarətdir. Bu cür illüstrasiyalar izahatları əvəz edir və nəticədə konseptual çaşqınlığa gətirib çıxarır. "Dil oyunları bu və ya digər dərəcədə bir-biri ilə kəsişir. Bu kəsişmədən asılı olaraq, onların qaydaları bu və ya digər dərəcədə unikaldır və ya bir neçə dil oyunu üçün ümumidir. Bunun təsiri ilə də müxtəlif dil oyunlarından olan linqvistik ifadələr hansısa ümumi mənaya malik ola bilər" (Skirbekk və Gilye, 2007, s.790).

Dil oyunları müxtəlifdir və insan fəaliyyətinin tamamilə bütün sahələrini əhatə edir. Dil oyunlarına aşağıdakılar daxildir: əmrlər və onların icrası, hadisələr haqqında məlumat və onlar haqqında düşünmə, hekayələr yazmaq və oxumaq, teatr tamaşaları, bir dildən digər dilə tərcümə, qədim mətnlərin şərhi, moizə və ya mühazirə oxumaq, məktəb dərsləri keçirmək və s.

"Fəlsəfi tədqiqatlar" əsərində qeyd etdiyi kimi, dil boş olduqda fəlsəfi problemlər yaranır. Dil boşluqdan çıxan kimi, işlədilən kimi fəlsəfi problemlər silinir və aradan qalxır. İşarə ancaq istifadədə yaşayır, məntiqi-fəlsəfi traktatda bəhs edilən cümlənin əlaməti öz məntiqi yerində ölüdür, ancaq bu sonsuz istifadə zənginliyində diridir. Lakin bütün bu istifadələr cisimlərin aspektlərinin dərk edilməsidir.

L.Vittgenşteyn hesab edir ki, sözlərin mənası, traktatı yazarkən ona göründüyü kimi, reallıq faktları ilə uyğun gəlmir, lakin onların dildəki həyatı, tarixi, ideoloji və son nəticədə həyat tərzi ilə müəyyən edilir. Dünya haqqında dəqiq biliklərin ötürülməsinə zəmanət verəcək sözlər yoxdur. Filosof dili bir sistem kimi müxtəlif illərə aid tikililəri və labirintili küçələri olan qədim şəhərlə əlaqələndirir. Amma bu o demək deyil ki, fövqəl, ali mənəvi dəyərlər, intuitiv bilik yoxdur. Fəlsəfənin vəzifəsi isə dili aydınlaşdırmaq, dəqiq linqvistik mənalar lüğətini tərtib etmək, "dil oyunlarının" qaydalarını müəyyən etmək, dilin saysız-hesabsız tələlərindən qurtulmaqdır.

Vitgenşteynə görə, insan yeganə varlıqdır ki, dilin köməyi ilə özü özünə problemlər yaradır. L. Vitgenşteyn fəlsəfəni dilin məntiqi imkanlarının təhlilinə qədər azaldırdı. L. Vitgenşteynin fikrincə, linqvistik fəlsəfə gündəlik həyatı xatırlamalı və metafizik sferaya aid olan sözləri gündəlik həyata qaytarmalıdır. Vitgenşteynə görə, "Doğru və ya yanlış məna yoxdur, anlaşılan və anlaşılmayan məna var. Anlamaq qaydalara əməl etməyin sonunda gəlir. Qaydalara riayət etmək dəmir yolu relsləri ilə deyil, relslər boyunca getməyə bənzəyir". (Ozcan 2018: 456)

**Nəticə**

Lüdviq Vitgenşteynin fəlsəfə konsepsiyasının əsas xüsusiyyəti ondan ibarətdir ki, o, fəlsəfəni nəzəriyyə kimi deyil, fikirləri aydınlaşdırmağa və ciddi şəkildə fərqləndirməyə yönəlmiş fəaliyyət kimi başa düşürdü. Vitgenşteyn fəlsəfəsi mövzusunun spesifikliyi dil praktikasının sosial əsasları ilə müəyyən edilir. Vitgenşteynin fəlsəfi yaradıcılığı 1930-cu illərdə Britaniyada yaranmış linqvistik təhlil nəzəriyyəsinə, nəzəri dilçilik və dil fəlsəfəsinə təsir göstərmişdir. Mütəfəkkir dünyanı əks etdirməyin məntiqi-linqvistik modelini irəli sürdü. Vitgenşteynin nailiyyətləri arasında xalis fəlsəfənin tənqidini də qeyd etmək lazımdır. Elmi təfəkkürün işarə-simvolik vasitələrinin rolunun müəyyən edilməsi, nəzəri aparatla empirik əsas arasında əlaqənin təhlili, biliyin riyaziləşdirilməsi və formallaşdırılmasının təbiətinin təhlili, biliyin mahiyyətini öyrənmək üçün fəlsəfədən istifadə etmək, ondan qeyri-müəyyən mülahizələri çıxarmaq istəyi Vitgenşteyn fəlsəfəsinin aparıcı müddəalarındandır. Ümumiyyətlə, dil fəlsəfəsi və gündəlik şüurun əlaqəli konseptual təhlili humanitar elmlərin perspektivli bölmələridir ki, burada artıq fenomenologiya, ünsiyyət nəzəriyyəsi, etika nəzəriyyəsi, linqvistik semantika, sosial psixologiya, hermenevtika, virtualistika və s. onun əsasında riyaziyyat, məntiq, informatika və digər tətbiqi elmlərin inkişafına mühüm töhfələr verilmişdir.

**İstifadə olunan ədəbiyyat**

1.Cornish K. (1998). The Jew of Linz. Century, 298 p.

2.Wittgenstein L. (2001). Tractatus Logico-Philosophicus (Routledge Classics) 2nd Edition.142 p.

3.Vitgenşteyn L. (1998). Philosophical Investigations. Wiley-Blackwell, 552 p.

4.Gökhan Y. (2022). Wittgenstein'ın Anti-Felsefesi. Bursa Uludağ Üniversitesi Fen-Edebiyat Fakültesi Felsefe Dergisi, Kaygı, 21 (1), s. 78-104.

5.Грязнов А. Ф. Лингвистическая философия // Новая философская энциклопедия / Ин-т философии РАН; Нац. обществ.-науч. фонд; Предс. научно-ред. совета В. С. Стёпин, заместители предс.: А. А. Гусейнов, Г. Ю. Семигин, уч. секр. А. П. Огурцов. — 2-е изд., испр. и допол. — М.: Мысль, 2010.

6.Çakmak C. (Temmuz 2013). "Wittgenstein'da Dil Ve Felsefe İlişkisi". Felsefe Arkivi, sy. 30, s.141-151.

7.Лэброн Т. (2019). Витгенштейн: философия, отменяющая философию. История философии. Т. 24. № 2. С. 114-125.

8.Özcan, Z. (2018). Dil Felsefesi III (İkinci Wittgenstein'da Gramer Paradigması). İstanbul: Sentez Yayınları.

9.Талалаева Е. Ю. (2018). Людвиг Витгенштейн: язык как логический образ мира. Научные сообщения. Вестник ВГУ. Серия: Философия. № 3. С. 149-154.

10.Hacıyeva M. (2018). Ünsiyyət prosesində linqofəlsəfi konsepsiya. ADU-nun Elmi xəbərləri. № 3-4, 2018, 3-9 s.

11.Языковая игра в речевой деятельности. (2021). https://intellect. icu/yazykovaya-igra-v-rechevoj-deyatelnosti-7258

12.Skirbekk Q., Gilye N. Fəlsəfə tarixi: Müasir dünyanın fəlsəfi qaynaqlarına bir baxış. Ali məktəblərin tələbələri üçün dərs vəsaiti. Bakı, "Zəkioğlu" nəşriyyatı, 2007, 864 s.

# YAPONİYA VƏ MƏRKƏZİ ASİYA ÖLKƏLƏRİ

**AFAQ NƏRİMANOVA**
AMEA ak. Z. Bünyadov adına Şərqşünaslıq İnstitutu,
afaq.nerimanova@mail.ru
BAKI, AZƏRBAYCAN

**XÜLASƏ**

Məqalə Yaponiya-Mərkəzi Asiya ölkələri arasında iqtisadi, siyasi, diplomatik əlaqələrin inkişafı, Yaponiyanın bu region ölkələrinə qarşı xarici siyasət konsepsiyalarının tədqiqinə həsr olunmuşdur. Mərkəzi Asiya ölkələri ilə iqtisadi əməkdaşlığı gücləndirmək, yeni dəyərlərin birgə yaradılması yolu ilə qarşılıqlı inkişaf hədəflərini müəyyən etmək, sosial məsələlərin həlli yolları arasında tarazlıq yaratmaq, davamlı inkişafa töhfə vermək istiqamətində Yaponiyanın İnkişafa Rəsmi Yardım proqramının əhəmiyyəti araşdırılmışdır. Regionun bir çox layihələrinin-nəqliyyat, kommunikasiya infrastrukturu, enerji, hava limanlarının yenidən qurulması, modernləşdirilməsi layihələrinin İnkişafa Rəsmi Yardım proqramı çərçivəsində həyata keçirilməsi təhlil edilmiş, bu layihələrə ayrılmış vəsaitlərin miqdarı göstərilmişdir. Təbii fəlakətlərin qarşısının alınması üçün infrastrukturun yaradılmasında, eləcə də yol-nəqliyyat kommunikasiyaları, sosial-kommunikasiya layihələrində Yaponiya korporasiyalarının iştirakı ilə yeni texnologiyaların tətbiqinin regional əməkdaşlıq üçün böyük potensial olduğu qeyd edilmişdir.

Məqalədə Mərkəzi Asiya ölkələrinin sabitliyi, inkişafı üçün regional əməkdaşlığı inkişaf etdirmək məqsədilə Yaponiya, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Özbəkistan, Türkmənistandan ibarət "Mərkəzi Asiya +Yaponiya" Dialoq çərçivəsində keçirilmiş görüşdə siyasi, intellektual dialoq, regiondaxili əməkdaşlıq, biznesin təşviqi, mədəniyyət və turizm sahəsində əməkdaşlığı inkişaf etdirmək istiqamətində fəaliyyət planı təhlil edilmişdir.

Araşdırılan mövzu beynəlxalq münasibətlərdəki ən son durumu əks etdirməsi baxımından aktualdır. Məqalədə müasir dövrdə Yaponiya–ASEAN münasibətlərinin elmi baxımdan araşdırılması ölkəmizdə tarix sahəsində tədqiqatlarda, elmi-tədqiqat əsərlərinin yazılması və ya tədris prosesində istifadə edilə bilər.

**AÇAR SÖZLƏR: Yaponiya, Mərkəzi Asiya, İnkişafa Rəsmi Yardım, əməkdaşlıq, konsepsiya, siyasi, inkişaf, sərmayə, layihə**

**ABSTRACT**

The article is devoted to the development of economic, political, diplomatic relations between Japan and the countries of Central Asia, and the study of Japan's foreign policy concepts towards the countries of this region. The importance of Japan's Official Development Assistance program in the direction of strengthening economic cooperation with Central Asian countries, determining mutual development goals through the joint creation of new values, creating a balance between solutions to social issues, and contributing to sustainable development was investigated. Implementation of many projects of the region - transportation, communication infrastructure, energy, airport reconstruction, modernization projects within the framework of the Official Development Assistance program was analyzed, and the amount of funds allocated to these projects was indicated. It was noted that the application of new technologies with the participation of Japanese corporations in the creation of infrastructure for the prevention of natural disasters, as well as road-transport communications, social-communication projects, has a great potential for regional cooperation.

In the article, in order to develop regional cooperation for the stability and development of the countries of Central Asia, a meeting was held within the framework of the Dialogue "Central Asia + Japan" consisting of Japan, Kazakhstan, Kyrgyzstan, Tajikistan, Uzbekistan, were analyzed political, intellectual dialogue, intraregional cooperation, business promotion, culture and tourism- an action plan for the development of cooperation

The researched topic is relevant in terms of reflecting the latest situation in international relations. In the article, the study of Japan-ASEAN relations in the modern period from a scientific point of view can be used in researches in the field of history, in the writing of scientific-research works or in the teaching process in our country.

**KEY WORDS: Japan, Central Asia, Official Development Assistance, cooperation, concept, political, development, investment, project**

## GİRİŞ

Məqalədə Mərkəzi Asiya ölkələrinin geosiyasi, təbii ehtiyatlarının zənginliyi baxımından Yaponiya üçün mühüm region olması, Yaponiyanın Sovet imperiyası dağıldıqdan sonra bu ölkələrlə əlaqələrin inkişafına xüsusi diqqət yetirməsi, sülh, sabitlik, firavanlıq və inkişaf naminə sıx əməkdaşlıq əlaqələrinin qurulması təhlil edilmiş, bir çox sahələrin inkişaf məqsədlərini həyata keçirmək, iqtisadi inkişafa, sosial məsələlərin həllinə nail olmaq istiqamətində Yaponiyanın Mərkəzi Asiya ölkələrinə İnkişafa Rəsmi Yardım proqramının, yeni diplomatik kurs və konsepsiyalarının tətbiqi nəzərdən keçirilmişdir. Müasir dövrdə bu ölkələrdə narkotiklərin qanunsuz dövriyyəsi, terrorizm, ətraf mühit, enerji, su, nəqliyyat, ticarət, investisiya sahəsində regional problemlərinin həlli istiqamətində çoxtərəfli əməkdaşlığın həyata keçirilməsi zəruriliyinə xüsusi diqqət yetirilmişdir.

İşin məqsədi Yaponiyanın Mərkəzi Asiya ölkələrinin inkişafı və texnologiya transferi kimi həssas biznes fəaliyyətlərində iştirak etmək üçün Mərkəzi Asiya ölkələri ilə əməkdaşlığını, xidmətləri də daxil olmaqla, hər iki tərəf üçün ümumi olan sosial məsələlərlə bağlı birgə fəaliyyətini təhlil etmək, iqtisadi inkişafı davam etdirmək məqsədilə Yaponiya və Mərkəzi Asiya ölkələri arasında infrastrukturun qurulması və investisiyaların cəlb edilməsi sahəsində, Yaponiya İnkişafa Rəsmi Yardımın ən böyük regional donorlarından biri olaraq Mərkəzi Asiya ölkələrinə yardımın təşviqi istiqamətində fəaliyyətini nəzəri cəhətdən araşdırmaqdır.

Müəllifin qarşısında duran əsas vəzifə problemi tarixi və elmi baxımdan işıqlandırmaq, bu ölkələrin münasibətlərinin mahiyyətini detallı və eyni zamanda bir-birilə bağlı şəkildə təhlil etməkdir.

Bu mövzu yeni deyildir, yerli və xarici tədqiqatçıların elmi əsərlərində, məqalələrində öz əksini tapmışdır. Bunun üçün əsasən, ASEAN veb saytında, yapon saytlarında dərc olunmuş məqalələrdən istifadə edilib.

Tədqiqat işinin strukturuna giriş, iki fəsil, tədqiqat metodu, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısı daxildir.

## I FƏSİL. YAPONİYA HÖKÜMƏTİNİN MƏRKƏZİ ASİYA ÖLKƏLƏRİ İLƏ BAĞLI KONSEPSİYALARI

Yaponiya hökuməti Mərkəzi Asiya ölkələri ilə bağlı yeni kursun həyata keçirilməsi, hərtərəfli iqtisadi əməkdaşlıq və bazar iqtisadiyyatına keçiddə bu ölkələrə yardım üçün geniş siyasi əlaqələrin inkişafını nəzərdə tutan "İpək Yolu» diplomatiya konsepsiyasını irəli sürdü. 1997-ci ilin iyulunda keçmiş baş nazir Ryutaro Haşimoto tərəfindən elan edilmiş "Avrasiya diplomatiyası" adlı xarici siyasi proqram Mərkəzi Asiya respublikalarına münasibətdə yeni xarici siyasətin başlanğıcını, onlarla region ölkələri ilə əlaqələrin əhəmiyyətli dərəcədə möhkəmlənməsini qeyd etdi. "Avrasiya diplomatiyası"na görə Yaponiyanın xarici siyasətinin Mərkəzi Asiya kursu üç əsas komponentdən ibarət idi:

- Güvən və anlaşmanın dərinləşdirilməsi üçün siyasi dialoq;
- Təbii resursların inkişafında iqtisadi əməkdaşlıq;
-Nüvə silahının yayılmaması ilə regionda sülhün əldə edilməsi, demokratikləşmə və sabitləşmə.[1]

"İpək Yolu" diplomatiyası 2000-ci illərdən etibarən Yaponiyanın Mərkəzi Asiyada mövcudluğunu təşviq etdi. Daha sonra Yaponiyanın regiona marağı Yaponiyanın baş naziri Şinzo Abenin 2015-ci ilin oktyabrında bütün beş Mərkəzi Asiya dövlətinə (bunu edən ilk Yaponiya lideri) tarixi səfəri zamanı nümayiş etdirildi. 2006-cı ildə Abe administrasiyası "Azadlıq və Rifah Qövsü: Yaponiyanın Genişlənən Diplomatik Üfüqləri" adlı xarici siyasət konsepsiyasında Mərkəzi Asiyaya münasibətini də inkişaf etdirdi. Konsepsiyada Mərkəzi Asiya regionu ASEAN ölkələri, Cənubi Asiya, Yaxın Şərq, Qara dəniz regionu, Mərkəzi və Şərqi Avropa ilə birlikdə Yaponiyanın azadlıq, demokratiya, qanunun aliliyi, fundamental insan hüquqları və bazar iqtisadiyyatı kimi ümumbəşəri dəyərlərə əsaslanaraq əməkdaşlıq edəcəyi Avrasiya regionunun bir hissəsi kimi daxil edildi. Bu konsepsiya Mərkəzi Asiya dövlətləri tərəfindən rəğbətlə qarşılandı və Yaponiyaya sistemli dəstəyi inkişaf etdirməyə kömək etdi. [2]

Yaponiya, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Özbəkistan və Türkmənistandan ibarət "Mərkəzi Asiya +Yaponiya" Dialoq çərçivəsi (C5+1) 2004-cü ildə regionda ümumi problemlərin həlli, Mərkəzi Asiya ölkələrinin sabitliyi və inkişafı üçün regional əməkdaşlığı inkişaf etdirmək məqsədilə Yaponiya tərəfindən yaradıldı. Qazaxıstanın paytaxtı Astana şəhərində rəsmiləşdirildi. Həmin ilin avqustunda o vaxtkı xarici işlər naziri Yoriko Kavaquçi dörd Mərkəzi Asiya ölkəsinə səfər edərkən Yaponiya Mərkəzi Asiya ilə bağlı yeni siyasət tətbiq etdi. Bu yeni siyasət iki sütundan ibarət idi: ənənəvi "ikitərəfli münasibətlərin möhkəmləndirilməsi" və "bütövlükdə Mərkəzi Asiya ölkələri ilə dialoq və əməkdaşlıq qurmaq". Görüşdə Mərkəzi Asiya ölkələrinin region daxilində birgə fəaliyyəti və gələcəkdə daha da inkişaf etməsi təsdiq edildi. Qeyri-qanuni narkotiklər, terrorizm, ətraf mühit, enerji, su, nəqliyyat, ticarət və investisiya sahəsində regional problemlərin həlli istiqamətində regiondaxili əməkdaşlığın inkişaf etdirilməsi zəruri hesab edildi. Bundan başqa, 2006-cı ilin iyununda Yaponiyanın xarici işlər naziri Taro Asonun sədrliyi ilə Tokioda keçirilən Xarici İşlər Nazirlərinin ikinci görüşündə Mərkəzi Asiya Plus Yaponiya Dialoqu üzrə fəaliyyət planı qəbul edildi. Daha sonra beş sahədə əməkdaşlığı inkişaf etdirmək barədə razılıq əldə edildi: 1) siyasi dialoq, 2) regiondaxili əməkdaşlıq,
3) biznesin təşviqi, 4) intellektual dialoq və 5) mədəniyyət və turizm sahəsində mübadilə.[5]

Bu Yaponiyanın Mərkəzi Asiya ilə əlaqələrinin inkişafında yeni eranın başlanmasına səbəb oldu. Müstəqillik əldə etdikdən sonra üç onillikdə Mərkəzi Asiya ölkələrinin inkişafını nəzərə alaraq, Yaponiya qanunun aliliyinə əsaslanan beynəlxalq nizamı qoruyan, möhkəmləndirən, davamlı inkişafı həyata keçirən azad və açıq Mərkəzi Asiya naminə əməkdaşlığı genişləndirməkdə davam etdi. Bu yeni əməkdaşlıq forumu qarşılıqlı fəaliyyət üçün mərkəzi platforma oldu.

"Mərkəzi Asiya + Yaponiya" Dialoqu çərçivəsində 8 Xarici İşlər Nazirlərinin Görüşü (son təkbətək görüş 2019-cu ilin may ayında Tacikistanda, 8-ci görüş isə virtual olaraq 2022-ci ilin aprel

ayında keçirildi), 15 baş nazir rəsmilərin görüşləri (SOM), 11 İntellektual dialoq (Tokio dialoqu), 7 ekspert görüşü və 2 biznes dialoqu keçirildi.

Mərkəzi Asiya ölkələri müstəqillik əldə etdikdən sonra Yaponiya bu ölkələrin sabit dövlət quruculuğuna, davamlı inkişafına töhfə verməküçün sosial-iqtisadi əməkdaşlığa xüsusi diqqət yetirdi. Yaponiya bütün regionda nəqliyyat, kommunikasiya infrastrukturu layihələrinə, o cümlədən Qazaxıstanın şərqində İrtış çayı körpüsünün tikintisinə sərmayə qoydu. Qazaxıstan, Türkmənistan, Özbəkistanda dəmir yolunun modernləşdirilməsi, Qırğızıstan, Tacikistanda yolların bərpası, Qazaxıstan, Qırğızıstan, Özbəkistanda hava limanlarının yenidən qurulması, modernləşdirilməsi layihələrini maliyələşdirdi. Yaponiya həmçinin tibb mərkəzlərinin tikintisi, bu tibb müəssisələrinin müasir tibbi avadanlıqlarla təchiz olunması, eləcə də Tacikistanın ucqar kənd yerlərində məktəblərin tikintisi ilə səhiyyə və təhsilin inkişafında mühüm rol oynadı. Regiondaxili əməkdaşlığı inkişaf etdirmək üçün ODA-dan müxtəlif tədbirlər üçün istifadə etmək səyləri haqqında xüsusi razılıq əldə edildi. Bundan başqa, Əfqanıstanın xarici işlər naziri də Xarici İşlər Nazirlərinin ikinci Görüşündə qonaq qismində iştirak etdi və sərhəd bölgəsində əməkdaşlığın vacibliyi geniş şəkildə anlaşıldı. Düşənbə, Bişkek və Aşqabadda Yaponiya səfirlikləri açıldı. [3]

## II FƏSİL. YAPONİYANIN MƏRKƏZİ ASİYA ÖLKƏLƏRİNDƏ İNKİŞAFA RƏSMİ YARDIMI

Yaponiya hökuməti iki təşəbbüsü ilə Mərkəzi Asiyada mövcudluğunu təmin etdi. Birinci istiqamət regiona qrantlar, texniki əməkdaşlıq, aşağı faizli və faizsiz kreditlər, digər maliyyə yardımı formaları təqdim edən region üçün İnkişafa Rəsmi Yardımı (ODA) oldu. Xüsusilə, ODA, maliyyə yardımı ilə yanaşı, bölgəyə texnoloji yeniliklərin çatdırılmasını təmin etdi. İkinci əməkdaşlıq kanalı Yaponiya şirkətlərinin regiona fəal cəlb olunması yolu ilə həyata keçirildi. Bu fəaliyyətlər çərçivəsində Yaponiya regionda enerji ilə bağlı layihələri inkişaf etdirməklə enerji resurslarının müəyyən hissəsini təmin etdi. Postsovet dövründə Yaponiya İnkişafa Rəsmi Yardımın ən böyük regional donorlarından birinə çevrildi. Xüsusilə Ş.Abenin Mərkəzi Asiya ölkələrinə səfəri zamanı bu statusu təsdiqləmək üçün əhəmiyyətli səylər göstərildi. Baş nazir ilk kabineti dövründə nəşr olunan və əslində siyasi manifest olan "Gözəl ölkəyə doğru" kitabında Mərkəzi Asiya ilə əməkdaşlığın vacibliyinə xüsusi diqqət çəkdi. Ş.Abenin bu bölgəyə xüsusi marağı təsadüfi deyildi.

Yaponiya baş nazirinin Ş.Abenin 2015-ci ilin oktyabrında Mərkəzi Asiya ölkələrinə səfəri zamanı ümumi dəyəri 27 milyard dollardan çox olan müqavilə və sazişlər imzaladı. Mərkəzi Asiya ölkələrində bağlanmış müqavilələrin ən böyüyü (18 milyard dollar) təbii qaz emalı zavodlarının, eləcə də qaz-kimya müəssisələrinin tikintisinə yardım üçünTürkmənistanla bağlandı. İkinci ən böyük sazişlər paketi (təxminən 8,5 milyard dollar) Tacikistanla bağlandı. Bu müqaviləyə gübrə zavodunun tikintisi, həmçinin logistika, telekommunikasiya, kimya və dağ-mədən sənayesi ilə bağlı bir sıra layihələr daxil idi. Yaponiyanın keçmiş baş naziri Ş.Abenin Özbəkistana səfəri zamanı da bir sıra mühüm investisiya sazişləri imzalandı. Özbəkistanın kimya sənayesi Yaponiyanın müasir texnologiyalarını almaqdadır. Qırğızıstanda isə Yaponiya tərəfi Manas beynəlxalq hava limanında avadanlıqların təmiri üçün maliyyə yardımı göstərməyə razılaşdı. Yaponiya-Qazaxıstan əməkdaşlığının inkişafı Yaponiya üçün xüsusi əhəmiyyət kəsb etdi. Müəyyən dövrdə Tokio Mərkəzi Asiyada neft və qaz ehtiyatlarının işlənməsində iştirak uğrunda rəqabətdən faktiki olaraq kənarda qaldı. 2011-ci ildə Fukusima-1 AES-dəki qəzadan əvvəl elektrik enerjisinin təxminən üçdə birini atom elektrik stansiyalarında istehsal edən və tədricən nüvə enerjisindən geniş istifadəyə qayıtmaq niyyətində olan Yaponiya Qazaxıstan və Özbəkistanda uran yataqlarının işlənməsinə çıxış əldə etdi. Koidzuminin Astana səfəri zamanı imzalanmış anlaşma memorandumuna əsasən, nüvə enerjisindən dinc məqsədlərlə istifadəyə dair hökumətlərarası sazişin bağlanması ilə bağlı Yaponiya-Qazaxıstan danışıqları 2007-ci ildə başladı və 2010-cu ildə uğurla başa çatdı. Nəticədə Yaponiyanın Mərkəzi Asiyada iqtisadi iştirakı Qazaxıstanda cəmləşdi. Yapon şirkətlərinin bu ölkədə toplanmış birbaşa investisiyaları 2017-ci ilə qədər təxminən 5,9 milyard dollar təşkil etdi.

N.A. Nazarbayev 2016-cı ilin noyabrında Tokioda səfər zamanı 1,2 milyard dollar dəyərində yeni investisiya sazişlərinin imzalandığını elan etdi.Yaponiya ilə region ölkələri arasında ticarət dövriyyəsi 2001-2016-cı illərdə 337 milyon dollardan 1,2 milyard dollara, o cümlədən Qazaxıstanla – 161 milyon dollardan 783 milyon dollara qədər artdı.

Ekspertlər Mərkəzi Asiyada biznes mühitinin yaxşılaşdırılması, infrastruktura investisiya və kadr hazırlığı məsələlərində Ş.Abenin hələ 2015-ci ildə irəli sürdüyü "keyfiyyətli infrastrukturun Asiyaya

ixracı" təşəbbüsünü yüksək qiymətləndiriblər. Təbii fəlakətlərin qarşısının alınması üçün infrastrukturun yaradılması, eləcə də yol-nəqliyyat kommunikasiyaları sahəsində, sosial-kommunikasiya layihələrində yeni texnologiyaların tətbiqi sahəsində Yaponiya korporasiyalarının iştirakı ilə regional əməkdaşlıq üçün əhəmiyyətli potensialın olduğu qeyd edilib. Nəqliyyat və logistika ilə yanaşı, kənd təsərrüfatı sektorunun qorunub saxlanılması əməkdaşlığın perspektivli istiqamətlərindən biri kimi təsdiqlənib. [6]

Tokionun Mərkəzi Asiya dövlətlərinə göstərdiyi İnkişafa Rəsmi Yardımının ümumi həcmi 2001-2015-ci illər üçün 1,6 milyard dollardan çox olmuşdur. Yardımın əsas respientləri Özbəkistan (2001-2015-ci illərdə 609 milyon dollar) və Qazaxıstan (444 milyon dollar) olaraq qalır; Qırğızıstan, Tacikistan və Türkmənistan müvafiq olaraq 295, 236 və 27 milyon dollar aldı. Yaponiyanın ayırdığı vəsait ilk növbədə səhiyyə, nəqliyyat infrastrukturunun inkişafı və ətraf mühitin mühafizəsi sahələrində layihələrə xərclənir. Bununla yanaşı, Yaponiya hələ də iqtisadi gücü siyasi şəraitlə əlaqələndirmir.

Regionun dövlətləri ilə daha kiçik məbləğlərə görə də (100 milyon dollara qədər) müqavilələr imzalandı. Yaponiyanın 5 il ərzində region ölkələrinə yardım üçün təxminən 25 milyard dollar ayıracağı da açıqlandı. 2017-ci ildə Türkmənistanda regional nəqliyyat layihələrinin həyata keçirilməsinə təxminən 24 milyard yen (təxminən 216 milyon dollar) ayrılacağı bildirildi. Qırğızıstanda 2019-cu ilin mart ayında Yaponiyanın qrant yardımı ilə üç uşaq bağçası açıldı. [4]

**TƏDQİQAT METODU:**

1918-ci ilin iyun ayında Gürcüstan hökumətinin Borçalı, Sığnax və Qarayazı ərazilərini hərbi güc tətbiq etmək yolu ilə öz nəzarətinə keçirmək cəhdləri AXC hökuməti tərəfindən sərt etirazla qarşılandı (Документы и материалы по внешней политике Закавказья и Грузии, 1919:436-437). Lakin buna baxmayaraq Tiflis hökuməti Gürcüstandakı alman hərbi kontingentinin fəal yardımı ilə Borçalının şimal hissəsini özünün hərbi nəzarətinə keçirdi (Azerbaycan-Gürcistan Sınır İhtilafı Hakkında Mehmed Emin Resulzade`nin Beyanatı, 1918:390-391). Bu zaman Osmanlı dövləti Borçalı qəzasının cənubunu və orta zolağının bir hissəsini özünün hərbi nəzarətinə aldı və bu koridorla Türkiyə ilə Azərbaycan arasında daimi birbaşa əlaqəni təmin etməyə çalışdı. Qafqaz İslam Ordusunun bir çox təchizatı da məhz bu yolla həyata keçirildi. Birinci dünya müharibəsinin sonuna qədər Borçalı koridoru Osmanlı dövlətinin nəzarətində qaldı. Bununla belə, bu zaman bölgədə əsas hərbi güc və söz sahibi olan Osmanlı dövləti də etnik prinsipdən çıxış edərək əhalisi əsasən türklərdən ibarət olan Borçalı qəzasının AXC-nin tərkibinə daxil edilməsi siyasətini yeridir və Borçalı məsələsinin diplomatik yollarla həll edilməsinə çalışırdı. Osmanlı dövlətinin hərbi naziri Ənvər paşanın mövqeyinə görə, AXC ilə Osmanlı dövləti arasında sərhəd Borçalı qəzasının qərbindən keçməli idi. Azərbaycan hökumətinin rəsmi bəyanatına görə də, AXC həm Naxçıvandan, həm də Borçalı qəzasının qərbindən Türkiyə ilə birbaşa sərhədə malik olurdu (Qafarov, 2022:81).

Cənubi Qafqaz respublikaları arasında mübahisəli ərazi-sərhəd məsələlərinin, o cümlədən Borçalı məsələsinin İstanbulda keçiriləcək beynəlxalq konfransda həll edilməsi qərarlaşdırılmışdı. 1918-ci il iyulun 29-da İstanbuldakı Azərbaycan nümayəndə heyətinin rəhbəri Məhəmməd Əmin Rəsulzadə Ənvər paşa ilə keçirdiyi görüşdə Cənubi Qafqaz respublikaları arasında mübahisəli ərazi sərhəd məsələləri, o cümlədən Borçalı məsələsi müzakirə edildi. Ənvər paşa qeyd etdi ki, qonşu respublikalar arasında ərazi-sərhəd mübahisələrinin sülh yolu ilə həlli üçün qarşılıqlı güzəştlər olmalıdır. Ənvər paşa gürcülərlə anlaşmaq üçün Borçalı qəzasından gürcülərə hansısa güzəştlərin mümkün olub-olmadığını soruşduqda M.Ə.Rəsulzadə qəti şəkildə bəyan etdi ki, müsəlmanlardan ibarət Borçalıdan gürcülərə hansısa ərazi güzəştləri vermək Azərbaycanın maraqlarına uyğun deyildir (Məhəmməd Əmin Rəsulzadənin xarici işlər naziri Məhəmməd Həsən Hacınskiyə məktubu, 1918:18).

Bu görüşdən sonra M.Ə.Rəsulzadə Azərbaycanla Gürcüstan arasında mübahisəli ərazi-sərhəd məsələlərini, o cümlədən Borçalı məsələsini müzakirə etmək üçün İstanbuldakı gürcü nümayəndə heyətinin üzvü Georgi Qvazava ilə görüşdü. Lakin gürcü tərəfinin nümayiş etdirdiyi qeyri-konstruktiv mövqe ucbatından Azərbaycanla Gürcüstan arasında ərazi-sərhəd mübahisələrini İstanbulda danışıqları yolu ilə həll etmək cəhdi uğursuzluqla nəticələndi (Qafarov, 2018:26). M.Ə.Rəsulzadə Azərbaycanın xarici işlər naziri Məhəmməd Həsən Hacınskiyə göndərdiyi 2 sentyabr 1918-ci il tarixli məktubunda bu görüşlə bağlı yazırdı: "Burada Qvazava ilə istədim ki, hüdud məsələsi üzərinə konuşalım. Sözü çox yenidən döndürdü. Cibindən bir xəritə çıxardığında Gürcüstanın bir tərəfdən Göyçə gölü və Qazax sancağına enən, digər tərəfdən Zaqatalanı da az qala ehtiva edən cizgiləri göstərdi. Bunu əsas tutaraq ancaq təshih-i hüdud xüsusları danışmaq olar, dedi, yoxsa qətiyyən barışmarıq. Qan tökmək lazım gələr. Mən də nə yapalım, məcbur qalınca qan da tökmək olur, deyə ayrıldıq" (Məhəmməd Əmin Rəsulzadənin xarici işlər naziri Məhəmməd Həsən Hacınskiyə məktubu, 1918:18).

Birinci dünya müharibəsinin gedişində baş verən dəyişikliklərlə bağlı olaraq İstanbulda konfransın keçirilməsi baş tutmadı. Bununla belə, İstanbuldakı Azərbaycan nümayəndə heyəti keçirdiyi diplomatik görüşlərdə, diplomatik korpuslara təqdim etdiyi notalarda və Osmanlı mətbuatında çıxış etdiyi bəyanatlarda Gürcüstanın Borçalı qəzasına olan ərazi iddialarının əsassızlığını, Borçalının tarixi Azərbaycan ərazisi olduğunu, burada yaşayan əhalinin də əsasən azərbaycanlılardan ibarət olduğunu tutarlı faktlarla sübuta yetirirdi. Azərbaycan diplomatiyası İstanbul konfransında iştirak edəcək dövlətlərdən Azərbaycanın Borçalı qəzasına olan iddialarını istər etnoqrafik, istər coğrafi, istərsə də tarixi cəhətdən əsaslandırır və hər bir dövlətin bu məsələyə həssaslıqla yanaşmasının vacib olduğunu bəyan edirdi (Kafkas Hududumuzda Gürcü Hükümeti'nce Tashihi Elzem Bir Nokta", Ati, no. 186 (5 Temmuz 1334), s. 1.).

Azərbaycan Xalq Cümhuriyyətinin Gürcüstan Respublikasındakı diplomatik nümayəndəsi Məmməd Yusif Cəfərov da iki ölkə arasında mübahisəli ərazi-sərhəd məsələlərini, o cümlədən Borçalı

məsələsini Tiflis hökuməti ilə mütəmadi müzakirə etməklə yanaşı, bu məsələni Dörtlər İttifaqı ölkələrinin Tiflisdəki missiyaları ilə də müzakirə edir və həll yolları tapmağa çalışırdı. 1918-ci ilin iyul ayında M.Y.Cəfərov Almaniyanın Tiflisdəki missiyasının rəhbəri Kress von Kressenşteynlə və Avstriya-Macarıstanın Tiflisdəki missiyasının rəhbəri Frankelşteyn görüşərək Azərbaycanla Gürcüstan arasında olan ərazi-sərhəd məsələləri ilə bağlı müzakirələr apardı. Azərbaycan nümayəndəsi xalqların öz müqəddəratını təyin etməsi prinsipinə və bölgənin etnoqrafik xəritəsinə görə, Borçalı qəzasından Türkiyə sərhədinə qədər orta zolağın, Qarayazı təpələri də daxil olmaqla Tiflis qəzasının bütün şərq hissəsinin və Sığnax qəzasının bir hissəsinin Azərbaycana verilməli olduğunu bəyan etdi və fikrini əsaslandırdı. Həm Kress, həm də Frankelşteyn Azərbaycan nümayəndəsinin irəli sürdüyü dəlilləri prinsip olaraq qəbul etdiklərini bildirdilər (Qafarov, 2018: 25).

1918-ci ilin yayında Azərbaycanla Gürcüstan arasında mübahisəli ərazi-sərhəd məsələlərində, o cümlədən Borçalı məsələsində Almaniya hökuməti birtərəfli qaydada yalnız Gürcüstanı müdafiə edir, ona hərbi-siyasi dəstək verir, Azərbaycan hökumətinin bu ərazilərlə bağlı haqlı tələblərini nəzərə almırdı. Almaniya hökumətinin belə davranışları qarşısında Osmanlı hökuməti də Azərbaycanı müdafiə edir və ona dəstək verirdi. Qafqaz İslam Ordusu komandanlığı tərəfindən Gəncədən Osmanlı Hərbi Nazirliyinə göndərilən 1918-ci il 3 avqust tarixli raportda 80 min nəfərlik əhalisinin başdan-başa müsəlmanlardan ibarət olan Qarayazı və Borçalının alman və gürcü qoşunlarının işğalı altında olduğu vurğulandıqdan sonra qeyd edilirdi ki, bu ərazilər heç bir halda Azərbaycan hökumətindən ayrıla bilməz. Çünki gürcülərin Borçalı ilə yanaşı, Qazax qəzasına da heç bir haqqı yoxdur. İyulun 27-də Borçalı və Qazax sərhədində Şıxlı kəndindən on kilometr şimalda Sınıq-körpü ərazisini işğal etməyə təşəbbüs göstərən 50-yə qədər gürcü ilə müsəlman əhalisi arasında toqquşma baş vermiş və bu toqquşmada gürcülər məğlub edilərək qovulmuşlar. O zamandan bəri buralarda sakitlik hökm sürür (Qafarov, 2018: 25).

Birinci dünya müharibəsinin başa çatması və Osmanlı qoşunlarının Cənubi Qafqazdan təxliyə edilməsi ilə Gürcüstan hökuməti Borçalının orta zolağını və cənub hissəsini özünün nəzarətinə keçirmək üçün hərbi güc tətbiq etməyə başladı. Bu zaman Ermənistan da Borçalının cənub hissəsini özünün nəzarətinə keçirmək üçün hərbi yola əl atdı və bu, 1918-ci ilin dekabrında tərəflər arasında müharibəyə gətirib çıxardı.

Ümumiyyətlə Gürcüstan hökuməti Borçalı, Sığnax və Tiflis qəzalarını özünün hərbi nəzarətinə keçirib Gürcüstanla Azərbaycan arasında sərhədin Tiflis və Gəncə quberniyalarının inzibati sərhədləri boyunca müəyyən edilməsinə çalışırdı. Mudros barışığından sonra Gürcüstan Respublikası Borçalı, Sığnax və Tiflis qəzalarını özünün hərbi nəzarətinə keçirdi və beləliklə 1918-ci ilin payızında Gürcüstanla Azərbaycan arasında Tiflis və Gəncə quberniyalarının inzibati sərhədləri və Sığnax qəzası ilə Zaqatala dairəsinin inzibati sərhədləri boyunca de-fakto sərhəd xətti bərqərar oldu. Lakin hər iki tərəf – həm Azərbaycan, həm də Gürcüstan tərəfi bu sərhəd xəttinin müvəqqəti və şərti xarakter daşıdığını və iki respublika arasında ərazi-sərhəd məsələlərinin sülh konfransında həll edilməsinə və sərhədlərin qəti olaraq təyin edilməsinə qədər qüvvədə olacağını dəfələrlə bəyan etdilər (Qafarov, 2022:87; Rəhmanzadə, 2008:70).

Bununla belə, Azərbaycan hökuməti AXC ərazisinə daxil olan Tflis quberniyasının Borçalı, Sığnax və Tiflis qəzaları uğrunda diplomatik mübarizəsini davam etdirdi. AXC-nin Osmanlı dövlətindəki diplomatik nümayəndəsi Əlimərdan bəy Topçubaşov 1918-ci ilin noyabrında Antanta dövlətlərinin İstanbuldakı nümayəndələrinə təqdim etdiyi memorandumunda "Azərbaycan Cümhuriyyətinin əhatə etdiyi ərazilər" bölməsində Tiflis quberniyasının Borçalı qəzasını tamamilə, Tiflis qəzasının 1/5 hissəsini, Sığnax qəzasının isə 1/3 hissəsini Azərbaycan ərazisi kimi göstərirdi (Топчибашев, 1993:20-21).

Ə.Topçubaşov tərəfindən 1919-cu ilin avqustunda Paris Sülh konfransına təqdim edilən "Qafqaz Azərbaycanı Cümhuriyyəti Sülh heyətinin Paris Sülh konfransından tələbləri"ndə də Tiflis quberniyasının Borçalı, Tiflis və Sığnaq qəzalarının bir hissəsi AXC ərazisi kimi göstərilirdi (Claims of the Peace Delegation of the Republic of Caucasian Azerbaijan Presented of the Peace Conference in Paris, 1919:27-28).

1920-ci ilin "Ünvan-təqvimi"ndə AXC-nin ümumi ərazisi 113895,97 km2, o cümlədən 97297,67 km2 mübahisəsiz ərazi, 16598,30 km2-i isə mübahisəli ərazi olaraq göstərilirdi. Sənəddə Azərbaycanla Gürcüstan arasında mübahisə predmeti olan ərazilərin Tiflis quberniyasının 8685,13 km2-dən ibarət asağıdakı əraziləri ehtiva etdiyi qeyd edilirdi: Tiflis qəzasının II və III polis sahələri;

Sığnax qəzasının V polis sahəsi; Borçalı qəzasının I, II polis sahələri, III və IV polis sahələrinin bir hissəsi (Пространство Азербайджанской Республики, 1920:50). Buradan aydın olur ki, AXC hökumətinin Osmanlı orientasiyası dövründən fərqli olaraq, sonrakı dövrdə Tiflis quberniyasına, o cümlədən Borçalı qəzasına yönələn ərazi tələbləri minimuma endirilmişdi.

**Nəticə**.

Beləliklə, belə bir nəticəyə gəlirik ki, Azərbaycan hökuməti AXC ərazisinə daxil etdiyi Borçalı qəzasına sahiblənmək və Borçalıda öz hakimiyyətini bərqərar etmək uğrunda gərgin diplomatik mübarizə aparmışdır. Borçalının tarixi Azərbaycan torpağı olması, qəzanın əhalisinin etnik tərkibi və orada yaşayan əhalinin AXC-yə birləşməklə bağlı müraciətləri bunun üçün siyasi və hüquqi zəmin yaratmışdı. Lakin göstərilən cəhdlərə baxmayaraq AXC hökuməti Borçalı qəzasını özünün faktiki hakimiyyəti altına ala bilmədi. AXC hökumətinin Borçalı qəzası uğrunda mübarizəsinin araşdırılmasından o da məlum olur ki, Azərbaycan hökuməti Osmanlı orientasiyası dövründə Borçalı qəzasını bütünlüklə öz ərazisi hesab etmiş və bunu tələb etmiş, sonrakı dövrdə isə, Borçalı qəzası ilə bağlı tələblərini minimuma endirmiş və qəzanın əsasən türk-müsəlmanlardan məskun olan orta zolağını tələb etmiş, qəzanın şimal və cənub qisimlərindən isə müvafiq olaraq Gürcüstan və Ermənistanın lehinə iddialarından geri çəkmişdir. AXC-nin süqutundan və Cənubi Qafqazın sovetləşdirilməsindən sonra 1918-1920-ci illərdə Azərbaycanla Gürcüstan arasında mübahisə predmeti olan Tiflis quberniyasının Borçalı, Sığnax qəzaları və Tiflis qəzasının Qarayazı ərazisi Moskva hökuməti tərəfindən Gürcüstana verildi.

**ƏDƏBİYYAT**

Azerbaycan-Gürcistan Sınır İhtilafı Hakkında Mehmed Emin Resulzade`nin Beyanatı // Azerbaycan Cumhuriyeti (1918-1920). Osmanlı Arşiv Belgeleri / Neşre hazırlayan: Q.Şükürov, V.Qafarov. – İstanbul: TEAS-Press, – 2018, s. 390-391.

Claims of the Peace Delegation of the Republic of Caucasian Azerbaijan Presented of the Peace Conference in Paris, Imp. Robinet-Hautain, Paris, 1919, 37 p.

Документы и материалы по внешней политике Закавказья и Грузии. Тифлис, Типография правительства Грузинской Республики, 1919, 513 с.

İstanbul Konferansı Öncesinde Azerbaycan Murahhas heyeti`nin Sunduğu Hudut Projesi // Azerbaycan Cumhuriyeti (1918-1920). Osmanlı Arşiv Belgeleri / Neşre hazırlayan: Q.Şükürov, V.Qafarov. – İstanbul: TEAS-Press, – 2018, s. 338-339.

Kafkas Hududumuzda Gürcü Hükümeti'nce Tashihi Elzem Bir Nokta", Ati, no. 186 (5 Temmuz 1334), s. 1.

Кавказский календарь на 1917 год. Тифлис, 1916, Отдель статистический, с. 210.

Məhəmməd Əmin Rəsulzadənin xarici işlər naziri Məhəmməd Həsən Hacınskiyə məktubu (İstanbul: 2 sentyabr 1918-ci il) // ARPİİSSA, Fond № 277, siyahı № 2, iş № 7, vərəq – 15-19.

Qafarov, V. Azərbaycan Cümhuriyyətinin tarixi-siyasi coğrafiyası (1918-1920) // Azərbaycan Tarixşünaslığı (Elmi Əsərlər), 2022, № 2 (83), s. 72-95.

Qafarov, V. Azərbaycanla Gürcüstan arasında ərazi-sərhəd məsələləri və İstanbul konfransı // AMEA-nın Xəbərləri, İctimai elmlər seriyası, 2018, № 4, s. 20-30.

Пространство Азербайджанской Республики, Адрес-календарь Азербайджанской Республики на 1920 г. Под ред. Ставровского. Типография газеты Азербайджан, Баку, 1920, ч. 1, с. 50.

Rəhmanzadə, Ş. Azərbaycan-Gürcüstan münasibətlərində ərazi məsələləri (Azərbaycanın şimal-qərb bölgəsinin materialları əsasında, 1917-1930-cu illərin əvvəlləri). Bakı: Aspoliqraf, 2008, 376 s.

Топчибашев, А. Меморандум. Баку: Азербайджан, 1993.

# POST-MÜNAQİŞƏ DÖVRÜNDƏ SÜLHQURUCULUĞU PROSESİ: PRİNSİPLƏRİ VƏ STRATEGİYALARI

**ŞƏLALƏ QULİYEVA**
Mingəçevir Dövlət Universiteti
Humanitar fənlər kafedrası
shalala.glyv@gmail.com
MİNGƏÇEVİR, AZƏRBAYCAN

**Summary**

In a world struggling with wars and separation, the pursuit of peace is more urgent than ever. A number of peace theories have been present not only to resolve the conflict but also to achieve stable and sustainable peace between the parties. The concept of peacebuilding, which is the subject of the article, is one of these theories. Peacebuilding as a transformative process aims to eliminate the main reasons for conflicts and lay the groundwork for lasting consonance and stability. This concept does not merely involve the end of hostilities, but a comprehensive approach that engages various stakeholders, promotes social justice, and seeks to provide the conditions for peaceful cohabitation to grow. In this article, we have analyzed previous research and explored the importance of peacebuilding, its cardinal tenets, key strategies, and the role of individuals and communities in building a peaceful future.

**Keywords: peacebuilding, conflict, lasting peace, sustainable development**

**ПРОЦЕСС МИРОСТРОИТЕЛЬСТВА И ЕГО КОНЦЕПТУАЛЬНЫЕ ОСНОВЫ**

**Резюме**

В мире, который борется с конфликтами и разногласиями, поиск мира актуален как никогда. Выдвинут ряд теорий мира не только для разрешения конфликта, но и для достижения стабильного и устойчивого мира между сторонами. Концепция миростроительства, являющаяся предметом статьи, является одной из таких теорий. Миростроительство как преобразующий процесс направлено на устранение коренных причин конфликтов и создание основы для прочной гармонии и стабильности. Эта концепция предполагает не просто прекращение военных действий, а комплексный подход, который включает в себя различные заинтересованные стороны, продвигает социальную справедливость и направлен на создание условий для процветания мирного сосуществования. В этой статье мы проанализировали предыдущие исследования и изучили важность миростроительства, его основных принципов, ключевых стратегий и роли отдельных лиц и сообществ в построении мирного будущего.

Ключевые слова: миростроительство, конфликт, прочный мир, устойчивое развитие.

## Giriş

Sülh quruculuğu sosial etimadı bərpa etməyə, barışığa kömək etməyə və münaqişədən çıxan cəmiyyətlərdə zorakılığın yenidən alovlanmasının qarşısını almağa çalışan çoxcəhətli və dinamik bir prosesdir. Münaqişəni bitirməyə istiqamətlənmiş ənənəvi münaqişələrin həllindən fərqli olaraq, sülh quruculuğu siyasi narazılıqlar, sosial-iqtisadi bərabərsizliklər və mədəni bölünmələr kimi münaqişələri alovlandıran əsas problemləri həll edir. Sülh quruculuğunun son məqsədi dinc yanaşı yaşamaq və sosial birlik üçün davamlı zəmin yaratmaqdır.

Sülh quruculuğu konsepsiyası münaqişənin əsas səbəblərini həll etməklə davamlı sülhün əldə olunmasına istiqamətlənmiş yanaşmadır. Sülhquruculuğu konsepsiyasını Yohan Qaltunq 1976-cı ildə "Sülhə üç yanaşma" adlı əsərində araşdırmışdır (Galtung, 1976). Qaltunqa görə, sülh quruculuğu müharibənin səbəblərini aradan qaldıran və cəmiyyətin bütün səviyyələrində davamlı sülhü sığortalayacaq bir sistem yaratmağa yönəlmiş tədbirlər toplusudur. Sülh quruculuğu Qaltunq tərəfindən siyasi lüğətə 1970-ci illərdə daxil edilsə də, 1990-cı illərdən sonra diqqəti cəlb etmişdir. Müasir dövrdə də bir çox tədqiqatçılar sülhquruculuğu prosesi ilə bağlı araşdırmalar aparmışdır. David Çandler 2017-ci ildə nəşr etdirdiyi "Sülhquruculuğu: iyirmi illik böhran, 1997-2017)" kitabında, Maykl Doyle və Nikolas Sambanisin 2014-cü ildə yazdıqları "Beynəlxalq sülhquruculuğu: nəzəri və

keyfiyyət analizi" məqaləsində sülhquruculuğu prosesin praktiki və nəzəri baxımdan yenidən təhlil edilmişdir. Məqaləni yazarkən türk mütəxəssisləri C. Dizdaroğlu, A. Eminoğlu, Y. Aydının da tədqiqatları nəzərdən keçirilmiş, aprılan təhlillər məqalədə öz əksini tapmışdır.

Bir çox tədqiqatçılarla yanaşı, BMT, eləcə də qlobal sülhü təmin etməyə çalışan regional və yerli QHT-lər bu konsepsiyanın prinsip və startegiyaları müəyyənləşdirməyə çalışmışlar. Məqalədə sülh quruculuğu haqqında aparılan tədqiqatlar nəzərdən keçirilmiş və konsepsiyanın prinsip və strategiyaları, iştrakçıların rolları haqqında ümumiləşdirmələr aparılmışdır.

Sülh quruculuğunun prinsipləri:

1. İnklüzivlik: Effektiv sülh quruculuğu hökumətlər, vətəndaş cəmiyyəti, təcrid olunmuş icmalar, qadınlar və gənclərin də iştrakıyla, bütün müvafiq maraqlı tərəflərin fəal iştirakını önəmsəyir. İnklüziv tədbirlər müxtəlif qrupların ehtiyac və istəklərinin nəzərə alınmasını təmin edir, sülhməramlı səylərə sahiblik və öhdəlik hissi yaradır (Eminoğlu & Aydın, 2021).

2. Münaqişənin təhlili: Münaqişənin mürəkkəbliklərini başa düşmək müvafiq strategiyaların işlənib hazırlanması üçün vacibdir. Münaqişənin hərtərəfli təhlilinin aparılması əsas səbəbləri, potensial pozucuları və müdaxilə imkanlarını müəyyənləşdirməyə yardım edir, sülhməramlıları məlumatlı qərar qəbul etməyə istiqamətləndirir (Dizdaroğlu, 2019).

3. Uzunmüddətli Perspektiv: Sülh quruculuğu tez həll yolu deyil; uzun müddət ərzində davamlı səylər tələb edir. Səbr və əzm, dağılmış cəmiyyətlərin yenidən qurulması prosesi zamanı yaranan çətinliklərin həlli üçün çox vacibdir.

4. Struktur zorakılığın aradan qaldırılması: Sülh quruculuğu dərhal zorakılıqdan kənara çıxır; struktur zorakılığı və sistemli ədalətsizliklərin həllinə çalışır. Bu, resurslara ədalətli çıxışın təşviq edilməsini, insan hüquqlarının pozuntularının aradan qaldırılmasını və sosial və iqtisadi tərrəqini təşviq etməyi əhatə edir (Dizdaroğlu, 2019).

Sülh quruculuğunda əsas strategiyalar:

1. Vasitəçilik və Dialoq: Münaqişə tərəfləri arasında dialoqun asanlaşdırılması sülh quruculuğu səylərinin əsasını təşkil edir. Bacarıqlı vasitəçilər tərəflər üçün öz şikayətlərini çatdırmaq, ümumi zəminləri araşdırmaq və davamlı həll yollarını müzakirə etmək üçün təhlükəsiz məkan yaratmağa kömək edir (Chandler, D. (2017).

2. Barışıq və Sağalma: Sülh quruculuğu qarşıdırmadan təsirlənən şəxslərlər və kommunalar arasında barışıq və şəfa tapmağa çalışır. Bu prosesdə həqiqət və barışıq komissiyaları, icma dialoqları və xatırlama səyləri mühüm rol oynayır.

3. Silahsızlanma, Demobilizasiya və Reinteqrasiya: Döyüşçülərdən silahların çıxarılması, onların mülki həyata keçməsinə köməklik etmək və onların cəmiyyətə yenidən inteqrasiyası zorakılığın yenidən baş vermə riskini azaldır (Chandler, 2017).

4. İnstitutların gücləndirilməsi: Dövlət institutlarının potensialının artırılması və yaxşı idarəçiliyin təşviqi sülhün inkişaf edə biləcəyi mühitin yaradılması üçün çox vacibdir.

5. Sosial-iqtisadi inkişaf: Yoxsulluq və sosial-iqtisadi bərabərsizliklərin aradan qaldırılması şikayətləri azaltmağa və təcrid olunmuş icmalar üçün imkanlar yaratmağa kömək edir.

Fərdlərin və icmaların rolu:

Sülh quruculuğu təkcə hökumətlərin və ya beynəlxalq təşkilatların məsuliyyəti deyil; aşağı səviyyədən başlayır. Adi fərdlər və yerli icmalar öz təsir dairələri daxilində sülhün təşviqi üçün önəmlidir. Onların verdiyi töhfələri aşağıdakı kimi ümumiləşdirmək olar:

1. İcmanın rəhbərlik etdiyi təşəbbüslər: Yerli icmalar anlaşma və əməkdaşlığı təşviq edən dialoqlar, mədəni tədbirlər və fəaliyyətlər təşkil etməklə sülhyaratma səylərinə təşəbbüs göstərə bilər (Chandler, 2017).

2. Sülh naminə təhsil: Pedaqoqlar zorakılığın və münaqişələrin həllinin dəyərini başa düşən sülh qurucularının yeni nəslini yetişdirməklə, sülh təhsilini kurikulumlara inteqrasiya edə bilərlər.

3. Dinlərarası və Etnoslararası Əməkdaşlıq: Dini və icma liderləri fikir ayrılıqlarını aradan qaldırmaq və tolerantlıq və hörməti təşviq etmək üçün dinlərarası və etniklərarası dialoqları təşviq edə bilərlər (Michael & Nicholas, 2000).

4. Həssas Qrupların Dəstəklənməsi: Qadınların, gənclərin və təcrid olunmuş icmaların gücləndirilməsi daha inklüziv və dinc cəmiyyətin yaradılmasına kömək edir (Eminoğlu & Aydın, 2021).

**Nəticə**

Sülh quruculuğu öhdəlik, əməkdaşlıq və yaradıcılıq tələb edən çoxşahəli bir işdir. Sülh quruculuğunun prinsip və strategiyalarını dərk etməklə, fərdlər, icmalar, hökumətlər və beynəlxalq təşkilatlar ixtilafların dinc üsullarla həll olunduğu, həqqaniyyətin hökm sürdüyü və davamlı sülhün bərqərar olduğu dünya üçün birlikdə çalışa bilərlər.

Bu gün qlobal miqyasda İkinci Dünya Müharibəsindən sonra heç vaxt olmadığı qədər şiddətli münaqişələr davam edir.Xarici Əlaqələr Şurasının Preventiv Fəaliyyət Mərkəzinin məlumatına görə, hazırda 27 qlobal münaqişə davam edir. Münaqişələrin əksəriyyəti Yaxın Şərq və Şimali Afrikada (9), Saharadan cənubda Afrikada (7), Asiyada (7), Avropada (2) və Amerikada (2) gedir.Dünya eyni zamanda 103 milyon insanın (dünya əhalisinin 1 faizindən çoxu) köçkün olması ilə indiyə qədər qeydə alınmış ən böyük məcburi köçkünlük böhranı ilə üz-üzədir.Qlobal Sülh İndeksinə əsasən, 2022-ci ildə qlobal sülhün orta səviyyəsi 0,3% pisləşib. Kiçik də olsa, bu pisləşmə uzun müddətdir davam edən tendensiyanı davam etdirir.

2008-ci ildən bəri qlobal sülhün səviyyəsi aşağı düşüb, orta ölkə balı 3,2% pisləşib, 84 ölkə pisləşib və GPI-də 77 yaxşılaşıb.

**Ədəbiyyat**

1.Dizdaroğlu, C. (2019) Barış İnşası. Güvenlik Yazıları Serisi, No.13, 11-24. https://trguvenlikportali.com/wpcontent/uploads/2019/10/BarisInsasi_CihanDizdaroglu_v.2.pdf

2.Eminoğlu, A., & Aydın, Y. (2021). Barış inşasında yeni bir yaklaşım olarak hibrit barış: Bosna-Hersek örneği. Ömer Halisdemir Üniversitesi İktisadi ve İdari Bilimler Fakültesi Dergisi, 14(2), 495–512.

3.Chandler, D. (2017) Peacebuilding: The twenty years' crisis, 1997-2017

https://books.google.az/books?hl=ru&lr=&id=__mODgAAQBAJ&oi=fnd&pg=PR3&dq=peacebuilding&ots=X3GBVTcM8q&sig=n8ushwOhc7t27ZjR8SpHOOZwX9c&redir_esc=y#v=onepage&q=peacebuilding&f=false

4.Galtung, J. (1976). Three Approaches to Peace: Peacekeeping, Peacemaking and Peacebuilding. In Peace, War and Defense. Essays in Peace Research II, 292-304.

https://www.galtung-institut.de/wp content/uploads/2016/06/galtung_1976_three_approaches_to_peace.pdf

5.Michael, W. D., & Nicholas, S. (2000) International Peacebuilding: A Theoretical and Quantitative Analysis. American Political Science Review, Volume 94, Issue 4, 779-801

https://www.cambridge.org/core/journals/american-political-science-review/article/abs/international-peacebuilding-a-theoretical-and-quantitative-analysis/2E28FC5F7DD0F30B097D83553312C023

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN TƏHSİLİNİN İNTİBAHI

**RABİL MEHTİYEV**
Bakı Mühəndislik Universiteti
Memarlıq və inşaat fakültəsi/Ümumi Fənlər Kafedrası
ramehdiyev@beu.edu.az
BAKI, AZƏRBAYCAN

**XÜLASƏ**

Təhsil sistemi gələcək inkişafın təməli kimi milli təhlükəsizlik konsepsiyasında mühüm komponentdir. Bu amili dəyərləndirən ulu öndər Heydər Əliyev təhsildə novator ideyaların daha tələbkar olmasını vacib hesab edirdi. Azərbaycan təhsilinin intibahı Heydər Əliyevin Azərbaycana rəhbərliyinin hər iki dövrünün əsas prioritetlərindən olmuşdur. Burada əsas istiqamətləri belə qruplaşdırmaq olar: təhsilin qlobal inkişaf tendensiyalarına cavab verən səviyyəyə çatması; elmi-pedaqoji kadr potensialının formalaşdırılması, məktəbəqədər, ümumi, peşə, orta ixtisas və ali təhsil müəssisələrinin geniş şəbəkəsinin yaradılması.

**AÇAR SÖZLƏR: Azərbaycan, Heydər Əliyev, təhsil, inkişaf.**

**ГАЙДЕР АЛИЕВ И РЕНЕССАНС АЗЕРБАЙДЖАНСКОГО ОБРАЗОВАНИЯ**

**РЕЗЮМЕ**

Система образования является важным компонентом концепции национальной безопасности как основы будущего развития. Оценивая этот фактор, великий лидер Гейдар Алиев считал важным, чтобы инновационные идеи в образовании были более требовательными. Возрождение азербайджанского образования было одним из главных приоритетов обоих периодов руководства Гейдара Алиева в Азербайджане. Здесь основные направления можно сгруппировать следующим образом: выход образования на уровень, соответствующий мировым тенденциям развития; формирование научно-педагогического кадрового потенциала, создание широкой сети дошкольных, общих, профессионально-технических, средних и высших учебных заведений.

**КЛЮЧЕВЫЕ СЛОВА: Азербайджан, Гейдар Алиев, образование, развитие.**

**HEYDAR ALIYEV AND RENAISSANCE OF AZERBAIJAN EDUCATION**

**SUMMARY**

Education system is an important component in the concept of national security as a foundation for future development. Evaluating this factor, the great leader Heydar Aliyev considered it important that innovative ideas in education should be more demanding. The renaissance of Azerbaijani education was one of the main priorities of both periods of Heydar Aliyev's leadership in Azerbaijan. Here, the main directions can be grouped as follows: education reaching a level that meets global development trends; formation of scientific-pedagogical staff potential, creation of a wide network of preschool, general, vocational, secondary and higher education institutions.

**KEYWORDS: Azerbaijan, Heydar Aliyev, education, development.**

## GİRİŞ

Təhsil quruculuğu gələcək inkişafın təməli kimi milli təhlükəsizlik konsepsiyasında mühüm komponentdir. Bu amili dəyərləndirən ulu öndər Heydər Əliyev təhsildə novator ideyaların daha tələbkar olmasını vacib hesab edirdi.

H.Həmidovun qeyd etdiyi kimi ulu öndər çıxışlarında təhsilin mürəkkəb bir sahə olduğunu dəfələrlə vurğulayaraq demişdir ki, "Təhsil sahəsi nə sənayedir, nə kənd təsərrüfatıdır, nə ticarətdir. Bu, cəmiyyətin xüsusi, intellektual cəhətini əks etdirən bir sahədir. Belə halda təhsil sisteminə çox diqqətlə yanaşmaq lazımdır və bu sistemə münasibət çox həssas olmalıdır" (H.Həmidov, 2008).

Siyasi sabitlik, iqtisadi tərəqqi təhsildə islahatların aparılmasına imkan yaratmış, uzun müddətli strategiya və proqramların icrasını təmin etmişdir.

Heydər Əliyevin rəhbərliyində məktəbəqədər təhsil müəssisələrinin sayı 1600-dən 1875-ə, habelə məktəbəqədər təhsillə əhatə səviyyəsi 12 faizdən 19 faizə qalxdı.

Təhsil müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi ilə bağlı imzalanmış sərəncamlar təhsilin inkişafına davamlı dövlət qayğısı idi. Heydər Əliyev ümumi təhsil müəssisələrində şagirdlərin dərsliklərlə təminatını milli əhəmiyyətli bir məsələ səviyyəsində qiymətləndirirdi. Həm də yalnız Azərbaycan bölməsi üçün deyil, rus bölməsində təhsil alanların dərsliklərlə təminatını şəxsən nəzarətdə saxlayırdı.

Ulu öndərin müstəqil ölkəmizə rəhbərliyində əldə edilən uğurları xarakterizə edən bir fikir: Ümummilli lider Heydər Əliyevin Təhsil Konsepsiyasının 1999-2003-cü illər zaman kəsiyindəki mərhələsi olan "Öyrədici innovativ mərhələ"nin həyata keçirilməsinin nəticəsində bütün pillə və səviyyələr üzrə təhsilin keyfiyyət göstəriciləri yüksəlmiş, Azərbaycan təhsilinin, onun maddi-texniki bazasının uzunmüddətli, dinamik inkişafı təmin edilmişdir (Məhərrəmova, 2023).

Ulu Öndərin "Azərbaycanın təhsil sistemi dünya təhsil sisteminin standartlarına uyğunlaşdırılmalıdır" tövsiyəsini rəhbər tutmaqla ümumi təhsil sahəsində müəyyən edilən dövlət siyasətinin yeni, mütərəqqi əsasları işlənib hazırlanmış, ümumi təhsilin məzmunu, idarəolunması, maliyyələşdirilməsi, maddi-texniki, normativ-hüquqi bazasının müasir tələblərə uyğunlaşdırılması istiqamətində ciddi islahat xarakterli fəaliyyətlər həyata keçirilmiş, dövlət və hökumət qərarları, sərəncamlar, proqramlar qəbul edilmiş, xeyli sayda inkişafyönlü layihələrin reallaşdırılması təmin olunmuşdur (Əhmədov, 2023).

Qeyd olunanlara Heydər Əliyevin fikri ilə yekun vurmaq məqsədəmüvafiqdir: Azərbaycan elmin, təhsilin, mədəniyyətin, iqtisadiyyatın inkişafina görə, öncül yerlərdən birini tutur. Xalqımızın kiitlavi suratdo təhsillənməsi, ali təhsil sisteminin, bütün sahələrdə milli kadrların, milli mütəxəssislərin yaranmasi XX əsrdə Azərbaycanın ən böyük nailiyyətlarindən biridir (Əliyev, 2002)

**TƏDQİQAT METODU**

Qarşıya qoyulmuş məsələni həll etmək üçün tədqiqatda analiz və sintez, tarixilik metodlarından istifadə olunmuşdur. Bu metodlardan istifadə araşdırılan mövzunun davamlı inkişaf hədəflərinin müəyyənləşdirilməsində vacibliyini təqdim etmək üçün metodoloji əhəmiyyətlidir.

**NƏTİCƏ**

Nəticə olaraq qeyd edək ki, ulu öndərin təhsil konsepsiyası həm sovet, həm də müstəqillik dövründə ölkəmiz üçün mütərəqqi xarakter daşımışdır. Bu istər iqtisadiyyyatın inkişafı üçün müvafiq kadrların hazırlanması, istərsə mənəvi keyfiyyətlər ilə zəngin şəxsiyyət yetişdirilməsinə əsaslı zəmin yaratmışdır.

**ƏDƏBİYYAT SİYAHISI**

1. Azərbaycan qəz. (2008), 5 dekabr, 2.

2. Əhmədov, A (2023). Azərbaycanın ümumi təhsili Heydər Əliyev ideyalarının işığında. Azərbaycan müəllimi. 17 fevral. № 7, 1-7.

3. Əliyev, H (2002). Təhsil millətin gələcəyidir. Təhsil, Bakı.

4. Məhərrəmova, S. (2023). Heydər Əliyevin Təhsil Konsepsiyası və Davamlı İnkişaf Meylləri. Akademik Tarih ve Düşünce Dergisi, Azerbaycan Halkının Milli Lideri Haydar Alirza Oğlu Aliyev'in Doğumunun 100. Yılı Özel Sayısı, 10 (1), 230-242.

# FÖVQƏLADƏ HALLARIN BAŞ VERMƏ EHTİMALININ MAŞIN ÖYRƏNMƏSİ (MACHINE LEARNING) ALQORİTMLƏRİ VASITƏSİLƏ PROQNOZLAŞDIRILMASININ MÜASİR DÖVRÜN MÜLKİ MÜDAFİƏSİNDƏ EFFEKTİVLİYİ

**Zeynalov Yalçın Fazil**
Bakı Mühəndislik Universiteti
Ümumi fənlər kafedrasının baş müəllimi

**Yunusov Mir Ramin Mir Qasım**
Bakı Mühəndislik Universiteti
Ümumi fənlər kafedrasının müəllimi
Fövqəladə Hallar Nazirliyinin Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzinin İnformasiya-kommunikasiya texnologiyaları idarəsinin,
Coğrafi informasiyalar sistemləri şöbəsinin zabiti, baş leytenant
myunusov@beu.edu.az
https://orcid.org/0009-0005-8323-4279

Xülasə: Müasir dövrdə Mülki müdafiənin qarşısına qoyulmuş əsas məsələlərdən biri baş verə biləcək fövqəladə hallar barəsində əvvəlcədən dəqiq məlumatın alınmasıdır. Elmi baxımdan belə fövqəladə halların proqnozlaşdırılmasının modelləşdirilməsi məqbul hesab edilir. Bu məqalədə fövqəladə vəziyyət risklərinin proqnozlaşdırılması üçün simulyasiya vasitəsi ilə riyazi-statistik modelləşdirmədən bəhs edilir. Bu məsələdə, Maşın öyrənməsi alqoritmlərinin bir neçə texnikasından istifadə edərək nümunə proqnoz işlənilmişdir.

**Açar sözlər: Supervised Machine Learning, Unsupervised Machine Learning, Support Vector Machine, MATLAB**

**Giriş**

Son dövrlər, fövqəladə hallar əhali və ərazilər üçün ciddi təhlükələr yarada bilir. Xüsusilə, dünyada və ölkəmizdə baş verən müxtəlif xarakterli fövqəladə halların statistik məlumatı bu hadisələrin baş verməsində artım dinamikasını göstərir. Bu, fövqəladə halların idarə edilməsi və mövcud risklərin proqnozlaşdırılmasını aktual məsələyə çevirir.

Dünya praktikasında mövcud müasir texniki imkanların dəstəyi nəticəsində baş verə biləcək fövqəladə halların əvvəlcədən müəyyənləşdirilməsi və proqnozlaşdırılması mümkündür. Bu məsələdə erkən xəbərdarlıq sistemlərinin rolu böyükdür. Qeyd etmək lazımdır ki, bu sistemlər mövcud sensorlar və radarlar vasitəsilə hər hansı bir hadisəni əvvəlcədən aşkar edə bilir. Lakin, baş vermiş fövqəladə halların statistik məlumatları əsasında hər hansı bir fəlakət barəsində proqnozun verilməsi və bu proqnozun erkən xəbərdarlıq sistemlərinə tətbiqi nəticəsində baş verə biləcək fövqəladə halların əvvəlcədən qarşısının alınması mümkündür ki, bu da fövqəladə haların idarə edilməsində və qərarın qəbul edilməsində effektiv rola malik olacaqdır

Yuxarıdakı sxemdən də göründüyü kimi, fövqəladə halların idarə edilməsində qərarın qəbul edilməsi prosesi üçün proqnozlaşdırılmada informasiya ilkin olaraq əsas əhəmiyyət kəsb edir.

Bu günə kimi, bu sahədə bir çox alimlər və mütəxəssislər tərəfindən genişmiqyaslı təhlillər aparılmış, müxtəlif riyazi-statistik modellər əldə edilmişdir. Lakin, müasir dövrdə elmin Süni İntellekt və Maşın Öyrənməsi sahəsində gəldiyi məqam, adıçəkilən texnologiyaların və uyğun metodologiyaların tətbiqi elmin digər bütün sahələrində aparılan tədqiqatların uğurlu nəticə əldə etməsində böyük rola malik olmuşdur.

Xüsusilə qeyd etmək olar ki, elm və texnikanın sürətli inkişafı nəticəsində süni intellektin mühüm tərkib hissəsi olan "Maşın Öyrənməsi" alqoritmlərinin tədqiqat sahəsində tətbiqi nəticəsində böyük nailiyyətlər əldə edilmişdir. Məhz bu səbəbdən məqalədə fövqəladə halların proqnozlaşdırılmasının əsas prinsipləri, maşın öyrənməsi alqoritmlərinin necə işlədiyi, fövqəladə halların proqnozlaşdırılması

üçün maşın öyrənməsi alqoritmlərinin və statistik metodların tətbiqi haqqında ətraflı məlumat veriləcəkdir.

Maşın Öyrənməsi riyazi və statistik metodlardan istifadə edərək mövcud məlumatları təhlil edən və təhlil olunmuş məlumatlarla müvafiq proqnozlar verən metod paradiqmasıdır. Maşın Öyrənməsi məlumat analizi üçün güclü bir alətdir və bu alət fövqəladə halların proqnozlaşdırılması üçün də tətbiq edilə bilər. Belə tədqiqatın aparılması üçün əvvəlcə müvafiq məlumatların toplanması və hazırlanması lazımdır. Daha sonra, əldə olunan məlumatlar Maşın Öyrənməsi alqoritmlərinə tətbiq edilir və modelləşdirilmə prosesi başlayır.

Maşın Öyrənməsi prosesi inkişaf etmiş proqramları və alqoritmləri əhatə edir və bu, maşının müxtəlif mənbələrdən datanı yığması və datanı təkmilləşdirmək üçün analiz etməsi vasitəsilə həyata keçirilir. Maşın Öyrənməsi üçün vacib olan metodlar əsas 2 kateqoriyaya bölünür: Nəzarət Olunan Maşın Öyrənməsi (Supervised Machine Learning) və Nəzarət Olunmayan Maşın Öyrənməsi (Unsupervised Machine Learning). Nəzarət Olunan Maşın Öyrənməsi metodunda keçmiş datadan istifadə edərək gələcək hadisələr dəyərləndirilir və maşına yeridilən yeni datanı müəyyənləşdirir. Maşının istifadə etməsi üçün müxtəlif növ nümunələr istifadə olunur. Bu zaman oxşar datanın müəyyənləşdirilməsi üçün keçmiş data vasitəsilə maşına alqoritm təqdim olunur. Nəzarət Olunmayan Maşın Öyrənməsi metodunda maşına təlimat vermək üçün operator yoxdur. Bu metodda əldə edilən data nəzarət olunan maşın öyrənməsi metodunda olduğu kimi təsnif olunmur. Maşın verilən datanı ilkin informasiya olmadan təsnifləşdirir və dəyərləndirir. Bu zaman maşın datanı müxtəlif tipli xüsusiyyətlərə görə təsnifləşdirir.

Ümumiyyətlə, baş verə biləcək və ya baş vermə ehtimalı olan fövqəladə halları proqnozlaşdırmaq üçün hadisələrin baş verdiyi ərazini və hadisələrin zərər dərəcəsini dəqiqləşdirmək üçün ətraflı statistik məlumatlar əldə edilməlidir. Bu məqsədlə tədqiqat üçün istifadə ediləcək məlumat toplusunu aşağıdakı kimi qruplaşdırmaq olar:

Fövqəladə hadisələrin müşahidə edildiyi ərazi: baxılan müddət ərzində baş verən fövqəladə halların hansı ərazidə xarakterik olduğu müəyyənləşdirilir.

Hava şəraiti: həmin müddət ərzində hava məlumatı, temperatur, yağış və küləyin sürəti kimi hadisələrin fövqəladə halın sürətinə, yayılma məsafəsinə və zərər dərəcəsinə təsir etməyi araşdırılır.

Araşdırılan müəyyən dövr üçün müvafiq tədqiqat məlumatları: baş vermiş əvvəlki hadisələrin sayı və zərər dərəcəsi haqqında məlumatlar əsasında gələcək dövr üçün proqnozun təsiri haqqında məlumatı araşdırmaq olar. Əgər müvafiq bölgə və ya regionla bağlı aparılmış keçmiş tədqiqatlar və statistik məlumatlar mövcuddursa, bunları da əldə etmək faydalı ola bilər.

Fövqəladə hal risklərinin proqnozlaşdırılması üçün müxtəlif maşın öyrənmə alqoritmlərindən istifadə edilə bilər. Alqoritmlərin müxtəlifliyi baxılan konkret məsələyə və mövcud məlumatlara görə dəyişə bilər. Aşağıda daha çox bilinən maşın öyrənmə alqoritmləri qeyd edilmişdir:

Dəstək Vektor Maşını (Support Vector Machine (SVM)): Dəstək Vektor Maşını (SVM), iki və daha çox araşdırılan əlaqəli məlumatların bir-biri ilə əlaqəsini müəyyən etmək üçün istifadə edilir.

Təsadüfi Meşə (Random Forest): Təsadüfi Meşə bir çox qarışıq məlumat dəstəsinin təhlilində işləmək üçün istifadə edilir. Bir çox qərar ağacının kombinə edilməsi ilə model yaradır və müxtəlif dəyişkənlərin effektlərinin kombinasiyasını qiymətləndirir.

Qradient Artırma (Gradient Boosting): Qradient Artırma bir neçə zəif modelin bir araya gətirərək daha güclü bir modelin yaradılmasıdır. Bu, yaradılacaq mürəkkkəb modeldə məlumatların təfərrüatlarının daha yaxşı mənimsənilməsinə kömək edir.

Sinir şəbəkələri (Neural Networks): Dərin Öyrənmə (Deep Learning) üçün istifadə edilən bu model, beyindəki sinir hüceyrələri (neyronlar) arasındakı əlaqəni təqlid edən riyazi modellərdir.

Xətaların Vahidləşdirilməsi (Ensemble Methods): Misal üçün, Bagging və ya Boosting, müxtəlif alqoritmlərin bir araya gətirilməsi ilə daha təsirli bir model yaratmağa kömək edir. Hər bir alqoritmın öz tərəfləri və zəifliklərı vardır. Seçiminiz məlumatınızın cürünə və mövcud resurslarınıza asılı olacaq.Ən yaxşı nəticəni əldə etmək üçün fərqli alqoritmləri sınamağınız və nəticələri müqayisə etməyiniz önəmlidir.

Baş vermiş fövqəladə halların statistik məlumatlarından istifadə edərək uyğun riyazi hesablama metodları olan korrelyasiya və reqresiya analizi aparıldıqdan sonra, daha uyğun alqoritmləri seçmək üçün bir neçə faktor və addım nəzərə alınmalıdır. Alqoritm seçimi edərkən aşağıda qeyd edilənlər nəzərə alınmalıdır:

Verilənlər və Qənaət: Hazırki verilənlər sayı, dərəcəsi və təsir gücünə baxaraq, daha az verilən ilə daha sadə alqoritmlər (məsələn, linearni regressiya) yaxşı nəticələr verə bilər. Əksinə, çox sayda məlumat və maksimum təsir gücünə sahib olan verilənlər daha kompleks alqoritmlərlə (məsələn, gradient boosting və ya sinir şəbəkələri) işləməyə imkan verir.

Dəyişənlər: Dəyişənlərin sayı və növü də önəmli faktordur. Əldə edilən məlumatlarda dəyişənlərin sayı çoxdursa və onlar arasında əlaqə güclüdürsə, kompleks alqoritmlər yaxşı nəticələr verə bilər.

Modelləşdirmə Tələbinin Əhəmiyyət Səviyyəsi: Fövqəladə hal risklərini təxmin etmək üçün dəqiqliyə nə qədər ehtiyac var? Tədqiqatın əhəmiyyət və dəqiqlik səviyyəsi nəzərə alınmalıdır. Daha dəqiqlik tələb edən tədqiqatlar üçün daha kompleks alqoritmlər istifadə oluna bilər.

Alqoritmlərin Parametrləri: Müxtəlif alqoritmlər müxtəlif parametrləri tələb edir. Alqoritmlərin optimal səviyyədə işlədilməsi üçün ətraflı tədqiqat tələb olunur.

Hibrid Yanaşma: Korrelyasiya və reqressiya analizi tətbiq edərək, daha sonra maşın öyrənmə alqoritmlərini istifadə etməklə hibrid bir yanaşmanın seçilməsi daha təsirli və ətraflı proqnozları təmin edə bilər.

İndiyə qədər aparılmış tədqiqatlar və real vəziyyətləri nəzərə alsaq, baş verən fövqəladə hallar və onların baş vermə səbəbləri bir-biri ilə əlaqədardır. Məhz bu səbəbdən gələcəkdə baş verə biləcək fövqəladə hal risklərinin proqnozlaşdırılması üçün Maşın Öyrənməsi alqoritmlərindən istifadə etmək istəsək, bizim üçün əlverişli metod Dəstək Vektor Maşını alqoritmi olacaqdır.

Dəstək Vektor Maşını (Support Vector Machine, bundan sonra, SVM) maşın öyrənmə alqoritmlərindən biridir və özündə iki-düzənli sinifləndirmə və ya reqresiya analizi üçün istifadə edilən bir alqoritmdir. İlk olaraq, SVM, iki-düzənli sinifləndirmə üçün yaradılmışdır, amma daha sonra dəyişilərək reqresiya və digər məqsədlər üçün də istifadə edilmişdir.

Fövqəladə halların risklərini proqnozlaşdırmaq, bir çox sahədə tətbiq edilən əhəmiyyətli bir problem olduğu üçün, MATLAB-da bu mövzuda çeşitli maşın öyrənmə alqoritmlərindən istifadə edilə bilər. Nəzərə alsaq ki, fövqəladə hallar barəsində proqnozlaşdırma üzrə tədqiqatı riyazi-statistik üsullarla modelləşdiririksə, o zaman hesabatın Matlab&Simulink proqram təminatının alətlərindən istifadə etmək daha məqsədəuyğun olar. Belə ki, Matlab-da maşın öyrənmə və statistik alqoritmlərindən istifadə etmək üçün "Machine Learning Toolbox" və "Statistics and Machine Learning Toolbox" adlı paketləri aktivləşdirmək gərəkdir.

Fövqəladə hal risklərinin proqnozlaşdırılmasının modelləşdirilməsi, MATLAB-da müxtəlif çeşitli maşın öyrənmə və statistik alqoritmlərindən istifadə edilərək həyata keçirilə bilər. MATLAB bu sahədə geniş funksionallığı olan proqramlaşdırma dili və əlavə paketlər təklif edir.

Əsasən, risk proqnozlaşdırmasını həyata keçirmək üçün aşağıdakı üç mərhələni izləmək lazımdır:

Verilərin hazırlanması: İlk addım olaraq, risk proqnozlaşdırması üçün lazım olan verilənlər bazası hazırlanmalıdır. Bu, verilənlərin yoxlanılması, əksik məlumatların doldurulması və yanlış məlumatların çıxarılması işinə daxildir. Həmçinin, verilənlər bazasının müxtəlifliyi və dolğun olmağı modelin daha effektiv və dəqiq olmasına xidmət edəcəkdir.

Model seçimi və təyinatı: MATLAB-da mövcud olan maşın öyrənmə alqoritmlərindən və statistik modellərdən istifadə edərək, risk proqnozlaşdırma üçün uyğun bir model seçilə bilər.

Modelin qiymətləndirilməsi və optimallaşdırılması: Modeli təyin etdikdən sonra, o qiymətləndirilməlidir. Bunun üçün, verilənləri diqqətlə nəzərdən keçirmək, xəta olan və problemli nöqtələrə diqqət yetirmək vacibdir. Modelin effektiv performansını artırmaq üçün, dəyişənləri və ya parametrləri optimallaşdırmaq, münasib dəyişikliklər etmək məqsədəuyğundur. Bu prosedurlar təcrübəyə bağlı olaraq dəyişə bilər, ətraflı mərhələlər də əlavə edilə bilər.

Baş verə biləcək hadisələrin proqnozunu təxmin etmək üçün SVM alqoritmini və mövcud məlumatları istifadə etmək aşağıdakı mərhələləri yerinə yetirmək lazımdır:

Məlumatların hazırlaması: verilən müvafiq zaman aralığının məlumatlarını istifadə edərək məlumat cədvəli hazırlanır. Bu cədvəldə “il”, “hadisə sayı”, “zərərçəkənlərin sayı”, “ölüm sayı” sütunlarımı qeyd edək.

| İllər | Hadisə sayı | Zərərçəkənlərin sayı | Ölüm sayı |
|---|---|---|---|
| 2021 | a1 | b1 | c1 |
| 2022 | a2 | b2 | c2 |
| 2023 | a3 | b3 | c3 |
| 2024 | a4 | b4 | c4 |

Məlumatların normalizasiya edilməsi: bu, məlumatları eyni məzmun standartlaşdırmağı təmin edir. Burada, dəyərləri 0 ilə 1 arasında dəyişənlərə çevirmək olar. Ən sadə normalizasiya üsulu min-max normalizasiyasıdır:

X_norm (X-X_min)/(X_max-X_min )

X_norm – normalizasiya edilmiş dəyərdir;

X – normalizasiya edilməli dəyərdir;

X_min – məlumatın minimum dəyəridir;

X_max – məlumatın maksimum dəyəridir.

Bu üsulu Matlab üzərində də tətbiq edə bilərik:

```
% Verilənlər
data = [a1 b1 c1; a1 b2 c2; a3 b3 c3; a4 b4 c4;]
%Məlumatların minimum və maksimum dəyərləri
min_vals = min(data);
max_vals = max(data);

% Normalizasiya üsulu ilə məlumatları hesablayırıq
normalized_data = (data - min_vals). / (max_vals - min_vals).
```

Bu kod, “normalized_data” adlı yeni bir cədvəl yaradacaq və bu cədvəldə məlumatlar 0 ilə 1 arasında normalizasiya ediləcəkdir. Daha sonra normalizasiya edilmiş məlumatı görüntüləmək üçün:

```
% Normalizasiya edilmiş məlumatı görüntülə
disp('Normalizasiya edilmiş məlumat:');
disp(normalized_data);
```

Bu, normalizasiya edilmiş məlumatlar SVM alqoritminə yüklənir.

Məlumatların modelə yüklənməsi: SVM alqoritmini istifadə edərək məlumatları modelə yükləyərək, buradan müvafiq fövqəladə halların proqnozunu təyin edək.

Matlabda SVM alqoritmini tətbiq etmək üçün “fitcsvm” funksiyasından istifadə edilir.

Modelin yaradılması: Destek vektor maşınları (SVM) MATLAB-da "fitcsvm" funksiyonu vasitəsilə yaradıla bilər:

```
% Məlumat kütləsinin yüklənməsi və hazırlanması
data = readtable('fovqelade_hal_melumatlari.csv'); % Məlumatların yüklənməsi
% Verilənlərin təyin olunması
X = data{:, {'Deyisken1', 'Deyisken2', 'Deyisken3', ...}}; % Əhəmiyyətli dəyişənlər
Y = data{:, 'FovqeladeHalRiski'}; % Fovqəladə hal riski

% SVM modelinin yaradılması
svm_model = fitcsvm(X, Y, 'KernelFunction', 'linear');

% Əməliyyat məlumatları üçün proqnozlar almaq
Y_pred = predict(svm_model, X);

% Proqnozların dəyərlərini 0 və 1 arasına normallaşdırmaq
Y_pred = (Y_pred + 1) / 2; % Əgər proqnozlar -1 və ya 1 olarsa

% Proqnozların qiymətləndirilməsi
confusion_matrix = confusionmat(Y, Y_pred);
accuracy = sum(diag(confusion_matrix)) / sum(confusion_matrix(:));
```

Tutaqki, 2021, 2022, 2023, 2024-cü illərdə müvafiq olaraq ölkə ərazisində baş vermiş X fövqəladə halın sayı 32, 60, 15, 93-dür. Nəzərdə tutulan illər üzrə baş verən X bir fövqəladə hal üçün sadə proqnozlaşdırma modeli yaratmağa çalışaq. Bu nümunə üçün sadə bir xətti reqressiya modelindən istifadə edəcəyik. MATLAB-da "Machine Learning Toolbox" və "Statistics and Machine Learning Toolbox" paketlərində olan alqoritmlərdən faydalana bilərik. Bu proqnozlaşdırma üçün aşağıdakı kodlaşmadan istifadə ediləcək:

```
% Verilənlər
years = [2021, 2022, 2023, 2024];
emergencies = [32, 60, 15, 93];

% X və Y dəyişənlərinin təyin olunması
X = years';
Y = emergencies';

% Xətti reqressiya modelinin yaradılması
mdl = fitlm(X, Y);

% Növbəti il və ya illər üzrə proqnoz
next_year = 2025;
predicted_emergencies = predict(mdl, next_year);

disp(['Texmin edilen hal sayı ' num2str(predicted_emergencies) '.']).
```

Burada nəzərə alınmalıdır ki, hər hansı bir fövqəladə halın proqnozlaşdırılması zamanı risk modelinin hazırlanmasında həmin fövqəladə hala təsir göstərən mümkün bütün amillər dəqiqliklə araşdırılıb, verilənləri model parametrlərinə daxil edilməlidir.

**Nəticə.**

Müasir dövrün Mülki müdafiəsinin əsas perspektivlərindən olan baş verə biləcək fövqəladə halların əvvəlcədən proqnozlaşdırılması və bu proqnoz məlumatlarının erkən xəbərdarlıq sistemlərinə tətbiqi gələcəkdə baş verə biləcək fəlakətli nəticələrin qarşısının alınmasında qərar qəbul edilməsi prosesinin effketivliyini artıracaqdır. Məqalənin əsas hissəsində göstərilən hesabatlar və onun daha təkmilləşdirilmiş forması qeyd edilən proseslərin daha dəqiq və sürətli olmasına kömək edəcəkdir.

**Ədəbiyyat**

Prof. Dr. Mahmut Tekin, İstatistiksel tahmin yöntemleri: yapay sinir ağları metodu ile ürün talep tahmini uygulaması. Konya: Selçuk Universitesi. 2011 [In Turkish: prof. Dr. Mahmut Tekin Statistical Forecasting Methods: Product Demand Forecasting Application with Artificial Neural Networks Method. Konya: Selcuk University] P. 41-93

Chunlai Wang, Evolution, Monitoring and Predicting Models of Rockburst, Beijing: China University of Mining and Technology. 2018 P. 149-163

Tuğba Çolak, İstatistiksel süreç kontrolü ve uygulamalar. Adana: Çukurova Universitesi. 2007 [In Turkish: Tugba Colak Statistical Process Control and Applications. Adana: Cukurova University] P. 18-39

F.N.Əliyev, C.İ.Mikayilov, Y.N.Əliyev, Statistika, Bakı, Qafqaz Universiteti. 2015 [In Azarbaijani: F.N.Aliyev, C.I.Mikayilov, Y.N.Aliyev Statistics. Baku: Qafqaz University] P. 21-53

Brian Caffo, Regression models for Data Science in R, 2019 Available at: https://everythingcomputerscience.com/books/regmods.pdf 137 p.

Mark C. Greenwood, İntermediate Statistics with R", 2021 Available at: https://scholarworks.montana.edu/xmlui/bitstream/handle/1/2999/Greenwood_Book_Version3p1_optimized.pdf?sequence=10&isAllowed=y 429 p.

# AZƏRBAYCAN DİLİ

## DİALOQ ŞİFAHİ QARŞILIQLI ƏLAQƏ FORMASI KİMİ

**ATAMOVA LEYLA**
Azərbaycan Dillər Universiteti
Xarici dillərin tədrisi metodikası kafedrasının doktorantı

**DIALOGUE AS A FORM OF VERBAL INTERACTION**

**SUMMARY**

The article mainly reviews the current position of the dialogue. Understanding the concept of dialogue and conflicting opinions were analyzed in various studies. This article also reflects the path of the dialogue from its inception to the present day and the roles it played in different periods.

Currently, there is no field where dialogue is not applied.

It is shown that the differences between communication and dialogue are also reflected in their symmetric and asymmetric structures. An asymmetric structure is based on the expression of the same information by 1 person and reception by many people, while in a symmetric structure, information is transmitted by one person and received by 1 person. Approaches to the differences between dialogue and communication from different perspectives are described. During the exchange of information, it is always talked about the ideas produced by the human brain and the adaptation and change of the person according to those ideas. In recent years, dialogue-based lessons have been discussed as one of the most used methods in English language teaching, and the positive aspects of the result are noted. As in all fields, the issue of the important role of dialogue on the political level is touched upon.

**KEY WORDS**: **dialogue and communication, communicative tasks, language learning, symmetrical and asymmetrical characteristics**

**ДИАЛОГ КАК ФОРМА ВЕРБАЛЬНОГО ВЗАИМОДЕЙСТВИЯ**

**РЕЗЮМЕ**

В статье в основном рассматривается современное положение диалога. Понимание концепции диалога и противоречивые мнения анализировались в различных исследованиях. В данной статье также отражен путь диалога от его зарождения до наших дней и роли, которые он играл в разные периоды.

В настоящее время нет ни одной области, где бы не применялся диалог.

Показано, что различия между общением и диалогом отражаются также в их симметричной и асимметричной структуре. Асимметричная структура основана на выражении одной и той же информации одним человеком и приеме многими людьми, тогда как при симметричной структуре информация передается одним человеком и принимается одним человеком. Описаны подходы к различиям диалога и общения с разных точек зрения. При обмене информацией всегда говорится об идеях, вырабатываемых человеческим мозгом, а также об адаптации и изменении человека согласно этим идеям. В последние годы диалоговые уроки обсуждаются как один из наиболее используемых методов преподавания английского языка и отмечаются положительные стороны результата. Как и во всех сферах, затронут вопрос о важной роли диалога на политическом уровне.

Ключевые слова: диалог и общение, коммуникативные задачи, изучение языка, симметричные и асимметричные характеристики

### GİRİŞ

Dialoq prosesi günümüzdə başqa zamanlara nisbətən daha vacibdir. Beləki, hazırda mədəni münasibətlərin inkişaf etdiyi bir dövrdə dünyada yaşayan insanların mədəniyyətləri arasındakı fərqliliklər səbəbindən ünsiyyətə girmək prosesi labüd olmuşdur. Dialoqun üstün tərəflərindən biri kimi onu qeyd etmək olar ki, əvvəllər iştirakçı olmayan, qərar qəbul etməyə qatılmayan insanlar üçün də söhbətin bir hissəsi olmaq kimi bir şans yaranır, belə ki, onlar da söhbətin iştirakçısına çevrilərək öz fikirlərini irəli sürürlər.

Uzun illər dialoq haqqında elmi fikirlər ziddiyyət təşkil emişdir. Eləcə də illər boyu bir çox alimlər və tədqiqatçılar dialoq barəsində elmi məqalələr yazmış, müxtəlif tədqiqatlar apardıqlarına görə adama elə gəlir ki, bu sahədə araşdırılacaq əlavə bir şey yoxdur. Buna baxmayaraq qeyd etmək lazımdır ki, onların hər biri məsələyə öz dövrünə görə yanaşmış, öz prizmasında baxaraq fikirlər irəli sürmüşlər. Amma ümumiləşdirsək deyə bilərik ki, bu araşdırmalar müxtəlif insanlar tərəfindən aparılsa da onların hamısı "dialoq – 2 şəxs arasındakı danışıqdır" mərkəzi fikrinə əsaslanmışdır.

Tədqiqat metodu. Qeyd etmək lazımdır ki, dialoq zamanı şəxslər arasındakı söhbətin məğzi önəm kəsb etmir. Bu daha çox kommunikasiya ilə bağlı məqamdır. Dialoqla bağlı fikir yürüdən araşdırmaçıların çoxunu bir məsələ birləşdirir, beləki onların bir çoxu dialoqla kommunikasiyanı eyniləşdirirdilər. Gəlin bəzi alimlərin bu fikrə necə yanaşmasını nəzərdən keçirək. Məsələn, Kaqanın yanaşması belədir: o, ünsiyyətin subyektlərarası əslaqə olduğunu və bu münasibət zamanı subyekt tərəfindən informasiyanın digər tərəfə çatdırılmasının baş verdiyini bildirir. Ünsiyyət elə bir prosesdir ki, orada tərəflərin bir-birinə ismarıc ötürməsi deyil, bütün iştirakçıların ümumi məlumat alması təmin edilir, bu, simmetrik strukturu təmin edir. Kommunikasiya isə asimmetrik xarakter daşıyır. (8, səh.120) Beləki, burada söhbət 2 roldan - məlumatı ötürən və qəbul edən 2 şəxsdən gedir. Burada passiv tərəf rolunda məlumatı alan çıxış edir. Dialoq isə bərabərhüquqlu subyektlər arasında ünsiyyətin elə bir növüdür ki, proses zamanı məlumatlar daima dəyişir, sualdan sual doğur. Fərqlilik də elə burada özünü göstərir, belə ki, dialoqu təkcə monoloq mübadiləsi adlandırmaq düzgün deyil, o, monoloqdan daha çoxu, daha böyüyüdür. Bu proses zamanı insan beyni mübadilə üçün mütəmadi olaraq yeni məlumatlar istehsal edir və iştirakçının vəziyyəti hər qəbul etdiyi informasiyaya uyğun dəyişir. (1, səh. 147)

Dialoqun yaranma tarixinə nəzər salsaq, görərik ki, o, insanların ilk yarandığı vaxtdan, mədəniyyət öz ilkin formasında istifadə edilən zamandan bəri mövcuddur. Dialoji münasibətlər müxtəlif dövrlərdə müxtəlif cür özünü biruzə vermişdir. L.M. Batkin bu barədə bildirmişdir ki, dialoji münasibətlərin mənası kontekstə uyğun dəyişir. Buna mahnıların birində qız ilə oğlan arasında baş tutan mahnı sözlərini misal göstərmək olar. Mahnıda eşitdiyimiz dialoq əslində aydın deyil, qız oğlanın verdiyi suala cavab vermir. O, yalnız öz qəm-kədərini dilə gətirir. Tədqiqatçı M. Jarməhəmmədli buna açıqlama gətirərək bildirib ki, bu tipli dialoqlar məntiqi əlaqəyə və struktura malik olmur. (4, səh.55) Burada dialoq söz yarışı formasında deyil, adət-ənənəyə əsaslanan davranış tərzinə əsaslanır ki, o da konteksti nəzərdən keçirməklə anlaşılır.

Ünsiyyət fəlsəfəsi tərəflərin 2 cür münasibətini təqdim edir: ünsiyyət və kommunikasiya (dialoq və kommunikasiya). Onlar arasında aydın fərqlər ayırd edilir. Kommunikasiya qeyri-simmetrikdir və bir istiqamətə yönəlmiş münasibətdir. İştirakçılardan məlumatı ötürən subyek, qəbul edən isə obyektdir. Onlar bir-birindən asılı deyillər.

Kommunikasiyadan fərqli olaraq dialoq simmetrikdir və aradakı ünsiyyət tərəflərin bərabərhüququqlu iştirakı vasitəsilə baş tutur və beləliklə ünsiyyətin 2 istiqamətliliyi təmin edilir. Burada iştirakçıların diqqəti onların hər ikisini maraqlandıran mövzuya yönəlir ki, bu zaman onlar arasında yeni mövzu yaranır. (3, səh.317)

Dialoq tərəflər arasında daha dərin anlamanı təmin edir. Sözün etimologiyasına nəzər salsaq, dialoq yunan sözüdür, dia – vasitəsilə, logos – söz deməkdir. Yunanlar anlamışdılar ki, əgər iki tərəf arasında narazılıq varsa və ya hər hansı bir məsələyə aydınlıq gətirmək lazımdırsa, bunun ən yaxşı yolu tərəflərin bir-birilə söhbət etməsi, bir-birinə sual verməklə təhlillər aparmasıdır ki, bu zaman ən vacib məsələlərdən biri qarşıdakının üzərinə şığımamaq, incitməmək, sakit danışıq aparmaqla məsələni dərindən anlamaq, fikirlərə aydınlıq gətirməkdir. Elə buna görədir ki, dialoq hər iki şəxsin ümumi maraqları üzərində qurulur və burada empatiya ilə dinləmə, yeni ideyaların üzə çıxması kimi elementlər mərkəzdə dayanır.

Baxtin əsas əsəri olan "Dialoji Təxəyyül"də yaratdığı dialogizm konseptini təqdim edir. (2, səh.19) O, burada ədəbiyyatın dialoji və monoloji işini qarşı-qarşıya qoyur. Dialoji iş ədəbiyyatın digər işləri və müəllifləri ilə davamlı dialoq aparır.

Bir dialoqun uğurlu olması üçün aşağıdakı qanunlar vacibdir: (6,səh.4)

Fikir müxtəlif tərəflərə deyil mərkəzi bir düşüncəyə yönəlir

Dialoq və qərar qəbul etmə proseslərinin arasında fərq vardır

Fərziyyələr təhlil edilərək aydınlaşdırılır

İştirakçılar öz fikirlərini irəli sürməkdən öncə şəxsi düşüncələri ilə paylaşırlar

Dialoqun ən məşhur modeli fizik Devid Bohm tərəfindən işlənib hazırlanmışdır. Onun fikrincə əvvəllər insanlara öz intellektual zəkasına arxalanmaq kifayət edirdi. İndi isə elə bir dövrdür ki, insanlar yaxşı bir nəticə əldə etmək üçün onlar birgə düşünməli, kollektiv iş aparmalıdırlar. Devid deyirdi ki, insanlar əhəmiyyətli məsələ barəsində söhbətlər apararkən münaqişə və ya konflikt qaçılmaz olur. O, bildirir ki, insanlar dialoq zamanı bir-birinə həmkar, həmyaşıd kimi baxmalıdırlar. (5, səh.86) Devid həmçinin bildirir ki, "Dialoq, bərabər hüquqlu insanlar arasında söhbətdir. Buna baxmayaraq, dialoqda tərəflərdən biri aparıcı rol qismində çıxış edir ki, onun da əsas vəzifəsi söhbət əsnasında yarana biləcək sıxıntılı anları idarə etmək, eləcə də söhbətin axıcılığını təmin etməkdən ibarətdir, lakin bu zaman həmin şəxs manipulyator olmamalı, maneə törətməməlidir." Bohm və tərəfdaşları belə düşünür ki, dialoq zəmanəmizdə üzləşdiyimiz böhranların həlli vasitəsidir.

Son illər ingilis dilinin tədrisində də şifahi metodlarla, eləcə də dialoq vasitəsilə öyrənməyə geniş yer ayrılır. Əslində bu tendensiya xarici dili öyrənmək üçün istifadə edilən qaydaları əzbərləmə, "qrammatik metod" və digər üsullara əks reaksiya kimi ortaya çıxmışdır. Çəkinmədən demək olar ki, "dialoq" adlanan öyrətmə metodu illərlə istifadə edilən və öz təsdiqini tapmış metodları özündə əks etdirir. Dialoq zamanı tələbələr öz fikirlərini irəli sürməklə yanaşı, həm də öz hisslərini və emosiyalarını qarşı tərəfə çatdıra bilirlər. Bu yolla dil öyrənmək daha asan və maraqlı olduğuna görə, müəllimlər həm yaxşı nəticə alır, həm də bu cür dərs tələbəyə motivasiya vermiş olur. Onu da qeyd etməliyik ki, xarici dil müxtəlif xalqlar tərəfindən öyrənildiyinə görə onun tədrisi zamanı həmin xalqların adət-ənənələri, yaşam tərzi, dəyərləri və s. də tələbələrə aşılanmalıdır. (7, səh.17) Araşdırmalar göstərir ki, tələbələrə xarici dil dialoq vasitəsilə tədris ediləndə onlar zamanla fikirlərini ifadə etməkdə çətinlik çəkmir, utancaqlıq aradan qaldırılır və onlarda özünəgüvən yaranır, onların danışıq qabiliyyətləri surətlə inkişaf edir. Bu, adətən dərsin əvvəlində müəllimin seçilmiş tələbələrin birilə nümunə üçün apardığı dialoqla başlayır.

1998-ci ildə Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası tərəfindən 2001-ci il "Sivilizasiyalararası dialoq ili" elan etdi və beləcə "Sivilizasiyaların toqquşması" konsepsiyası rədd edildi. Bununla da Baş Assambleya fikir, düşüncə mübadiləsi, qarşılıqlı anlaşma, tolerantlığın artırılmasına əsaslanan dialoqu təşviq etmiş oldu. "Sivilizasiyalararası dialoq" beynəlxalq münasibətlərdə mühüm rol oynayır. Bu nəzəriyyə ilk dəfə Samuel Hanqtinqtonun 1996-cı il "Sivilizasiyaların toqquşması" konsepsiyasına cavab olaraq İranın keçmiş prezidenti Məhəmməd Hatəmi tərəfindən hazırlanmışdır. Bundan sonra dialoq beynəlxalq münasibətlər və mədəniyyətlərarası anlaşma üçün yeni bir paradiqma kimi çıxış etdi ki, buradakı məqsədlər aşağıdakılardır:

- münaqişələrin və mübahisələrin sülh yolu ilə həllini təşviq etmək və asanlaşdırmaq
- müxtəlif icmalar arasında dialoqun istifadəsinin təşviq edilməsi
- dünyanın sülh içində yaşaması üçün dialoqlara üstünlük vermək
- müxtəlif ölkə, mədəniyyət, din, irq və s. arasındakı gərginliyi stabilləşdirmək

## NƏTİCƏ

Beləliklə, dialoq göründüyü kimi sadə bir proses deyil. Effektiv dialoq elə dialoqa deyilir ki, orada iştirakçılar bərabər hüquqa malik olurlar, bir-birlərinə hörmət və empatiya hissi ilə qulaq asırlar, irəli sürdükləri ideya və fərziyyələri mühakiməsiz şəkildə araşdırırlar. Dialoqu bəzən digər nitq formalarına bənzədirlər, lakin o, spesifik bir kateqoriyaya aiddir. Onun fərqləndirici xüsusiyyətlərini nəzərdən keçirsək, görərik ki, məsələn, debatdan fərqli olaraq burada mübahisə və yaxud kiminsə tərəfini tutaraq söhbəti davam etmək, qarşıdakının fikrini tənqid etmək kimi hallar izlənmir. Danışıq tipli ünsiyyət vasitəsindən dialoqun fərqi isə ondan ibarətdir ki, danışıqlar zamanı əsas məqsəd söhbətin sonunda hansısa razılığa gəlmək, fikirlərin ortaq məxrəcdə cəmlənməsidir.

**ƏDƏBİYYAT SİYAHISI**


1. Каган М.С. Проблема межсубъектных отношений. 1988. S.147
2. Бахтин М.М. Проблемы поэтики Достоевского. 1972. S.19
3. Буш Г.Я. Диалогика и творчество. Riqa. 1985. S.317
4. Zharmukhamedov, M. 1990. S.55
5. Michael A. Peters & Tina Besley. Models of dialogue, Educational Philosophy and Theory. 2021. S.6
6. Schein, E.H., "The process of dialogue. Creating effective communication". 1994. S.4
7. Межуев В.М. Диалог между цивилизациями как философская проблема. 2004. S.17
8. Лотман Ю.М. Асимметрия и диалог. 2000. S.120

# TÜRK VƏ QAQAUZ DİLLƏRİNDƏ MƏRASİM LEKSİKASININ LİNQVOKULTUROLOJİ XÜSUSİYYƏTLƏRİ

**AYGÜL MİRZƏYEVA**
AMEA akad. Z.M.Bünyadov adına
Şərqşünaslıq İnstitutu
mirzeli89@mail.ru
Bakı, Azərbaycan

**XÜLASƏ**

Hər bir dilin leksikasının etnoqrafik qatının öyrənilməsi onun mədəniyyəti, adət-ənənələri, məişəti, dünyagörüşü haqqında məlumat əldə etməyə və xalqların mədəni əlaqələrinin dilə təsirini öyrənməyə imkan yaradır. Mərasim leksikasının öyrənilməsi xalqın dünyagörüşü və mədəniyyətinin spesifik cəhətlərinin dildə özünü göstərən faktlarının öyrənilməsi deməkdir. Leksikanın bu qatı semantik baxımdan bir neçə qrupa bölünür: məişət mərasimləri ilə bağlı sözlər; təqvim mərasimləri ilə bağlı sözlər; adət-ənənə ilə bağlı sözlər. Adıçəkilən mərasimlər xalqın tarixi, mədəniyyəti və dini əsasında yarandığı üçün hər bir xalqın yaradıcı təfəkküründün, dünyagörüşünün məhsulu hesab olunur. Məişət mərasimlərinə toy, doğum, yas mərasimləri aiddir. Göstərilən hadisələr hər bir cəmiyyətin bağlı olduğu qanunlar, ictimai prinsiplər və adət-ənənələr əsasında həyata keçirilir. Bu mərasimlərdə hər bir xalq müəyyən ənənələrə əməl edir, inanclarına bağlı olaraq ayinlər həyata keçirir. Məqalədə türk və qaqauz dillərinin lüğət fondununda xüsusi yer tutan mərasim leksikası müqayisəli-tarixi və təsviri metodlardan istifadə edilərək tədqiqata cəlb olunmuşdur. İnsan həyatının üç əsas keçid mərhələsi olan doğum, evlənmə və ölüm hadisələri ilə bağlı türk və qaqauz xalqlarının həyata keçirdikləri ənənələr, ayinlər ümumtürk və müasir türk mədəniyyətləri ilə müqayisəli şəkildə təhlil edilir. Bundan başqa, mövsümi mərasimlərlə, bayramlarla bağlı leksika da türk tarixi və mədəniyyəti aspektindən tədqiq edilir. Türk dillərində etnolinqvistik leksikanın müqayisəli öyrənilməsi türk xalqlarının ortaq tarix və mədəniyyətə malik olduğunu, eyni soy-kökdən gəldiyini aşkara çıxarmağa kömək edəcəkdir. Türk və qaqauz dillərində mərasim leksikasının linqvokulturoloji xüsusiyyətlərinin öyrənilməsi adı çəkilən türk xalqlarının ortaq mədəniyyəti və hər birinin həyatında baş vermiş iqtisadi, sosial və mədəni dəyişikliklərin tədqiqi baxımdan aktual mahiyyət daşıyır.

**AÇAR SÖZLƏR: mərasim, etnoqrafizm, mədəniyyət, dil**

**ABSTRACT**

Studying the ethnographic layer of the lexicon of each language makes it possible to get information about its culture, traditions, everyday life, worldview, and to study the influence of the cultural relations of peoples on the language. The study of the ceremonial lexicon means the study of the facts of the history and culture of the people that are manifested in the language. This layer of vocabulary is divided into several groups from the semantic point of view: words related to household ceremonies; words related to calendar ceremonies; words related to tradition. Since the mentioned ceremonies were created on the basis of the history, culture and religion of the nation, they are considered to be the product of the creative thinking and outlook of each nation. Household ceremonies include weddings, births, funerals. The mentioned events are carried out on the basis of the laws, social principles and customs to which every society is bound. In these ceremonies, each nation follows certain traditions and performs rituals based on its beliefs. In the article, the ceremonial lexicon, which has a special place in the vocabulary of the Turkic and Gagauz languages, is involved in the research. The traditions and rites of the Turkic and Gagauz peoples regarding birth, marriage and death, which are the three main transitional stages of human life, are analyzed in parallel with the Turkish and modern Turkish cultures. In addition, vocabulary related to seasonal ceremonies and holidays is also studied from the aspect of Turkish history and culture. The comparative study of the ethnolinguistic lexicon in Turkish languages can be considered as proof that the Turkish peoples have a common history and culture and come from the same ancestry.

Keywords: ceremony, ethnography, culture, language

## GİRİŞ

Leksikanın linqvokulturoloji xüsusiyyətlərini öyrənərkən etnoqrafik leksikanın tədqiqi xüsusi əhəmiyyət daşıyır. Belə ki, hər bir dilin leksikasının etnoqrafik qatının öyrənilməsi onun mədəniyyəti, adət-ənənələri, məişəti, dünyagörüşü haqqında məlumat əldə etməyə və xalqların mədəni əlaqələrinin dilə təsirini öyrənməyə imkan yaradır. İ. Məmmədli "Azərbaycan dilinin etnoqrafik leksikası" adlı əsərində etnoqrafik leksikanın öyrənilməsinin həll etdiyi məsələləri sadalayarkən türk dilləri leksikasının konkret və ümumi-nəzəri məsələlərinin şərhi, türk xalqlarının maddi və mənəvi mədəniyyətlərindəki eyni, yaxın və oxşar cəhətlərin aşkarlanmasında rolunu xüsusi vurğulayır (Məmmədli, 2009).

Etnoqrafik leksika deyərkən dilin lüğət tərkibində din, mifologiya, məişət və mərasimlərlə bağlı sözlər nəzərdə tutulur. "Etnoqrafik leksika üçün ən qiymətli qaynaqlar, mənbələr folklor materialları, qayaüstü, qəbirüstü yazılar, rəsmlər, şifahi xalq yaradıcılığı, elmi-tarixi, ədəbi-bədii mənbələr, şivə materialları, arxeoloji qazıntılar sayılır" (Məmmədli, 2009). Mərasim leksikasının öyrənilməsi xalqın tarix və mədəniyyətinin dildə özünü göstərən faktlarının öyrənilməsi deməkdir. Leksikanın bu qatı semantik baxımdan bir neçə qrupa bölünür: məişət mərasimləri ilə bağlı sözlər; təqvim mərasimləri ilə bağlı sözlər; adət-ənənə ilə bağlı sözlər.

Adıçəkilən mərasimlər xalqın tarixi, mədəniyyəti və dini əsasında yarandığı üçün hər bir xalqın yaradıcı təfəkküründün, dünyagörüşünün məhsulu hesab olunur. Məişət mərasimlərinə toy, doğum, yas mərasimləri aiddir. Bu mərasimlərdə hər bir xalq müəyyən ənənələrə əməl edir, inanclarına bağlı olaraq ayinlər həyata keçirir.

Həm türk, həm də qaqauz dillərinin etnoqrafik leksikası müəyyən elmi araşdırmaların tədqiqat obyekti olmuş, mərasimlərlə bağlı bir sıra əsərlər yazılmışdır. Ancaq Azərbaycan dilçiliyində qaqauz və türk dillərinin etnoqrafik leksikası, xüsusilə linqvokulturoloji aspektdən ilk dəfə təhlil olunur. Məqalədə türk və qaqauz dillərinin lüğət fondununda xüsusi yer tutan mərasim leksikası müqayisəli-tarixi və təsviri metodlardan istifadə edilərək tədqiqata cəlb olunmuşdur.

Müasir qloballaşma dövründə türk xalqlarının birliyinin təmin edilməsi ortaq keçmiş əsasında gələcəyə istiqamətlənmiş addımların atılması, ilk növbədə, mənəvi birlik əsasında mümkün olacaqdır. Türk və qaqauz dillərində mərasim leksikasının linqvokulturoloji xüsusiyyətlərinin öyrənilməsi adı çəkilən türk xalqlarının ortaq mədəniyyəti və hər birinin həyatında baş vermiş iqtisadi, sosial və mədəni dəyişikliklərin tədqiqi baxımdan aktual mahiyyət daşıyır.

Türk və qaqauz dillərinin lüğət tərkibində toy mərasimi ilə bağlı sözlər

Türk dillərində toy mərasimi ilə bağlı leksikanı müəyyənləşdirərkən sözləri bir neçə mərhələ üzrə qruplaşdırmaq olar: elçilik, nişan, xına, toy və toydan sonrakı proseslərlə bağlı leksik vahidlər. Türk dilində qaqauz dilindən fərqli olaraq toy (düğün) mərasimi daha geniş əhatəlidir. Çünki evlilikdən başqa "sünnet düğünü" (sünnət toyu) mərasimi də vardır ki, bu, türklərin həm dini inancı, həm də adət-ənənəsi ilə bağlıdır. Sünnet sözünün sinonimi kimi "kesdirme" leksemi də işlənir. Sünnət mərasimi ilə bağlı dil faktlarına "kirve", "sağdıç" leksemləri də aiddir. Türk və qaqauz dillərinin toyla bağlı mərasim leksikası arasında fərq, əsasən, adət-ənənə və mərasimlər zamanı həyata keçirilən rituallarda özünü göstərir.

Toy mərasimləri ilə bağlı leksik-semantik söz qrupu həm işlənmə tezliyi, həm də kəmiyyət baxımından türk və qaqauz dillərinin lüğət tərkibində mühüm yer tutur. Toy mərasimləri hər iki xalqın adət və ənənələrinə görə bir neçə mərhələni əhatə edir və hər bir mərhələnin özünəməxsus söz qrupları vardır. Bu mərasim əsasən qaqauz və türk mədəniyyətində eyni mərhələləri təşkil edir. Türk mədəniyyətində bu mərhələlər aşağıdakı ardıcıllıqla həyata keçirilir: kız isteme; söz kesimi-şerbet; nişan; kına gecesi; düğün; düğün sonrası. Toydan əvvəl azərbaycanlılar kimi, türklər də xına mərasimi keçirirlər, lakin bu, qaqauz mədəniyyəti üçün xarakterik deyil.

Türk dilində evlilik və toy mərasimi ilə bağlı aşağıdakı söz və ifadələr vardır: dünür düşme, dünür gitme (elçi getmək), elçilik, görücülük, kız isteme, sıra yemeği (böyük qonaqlıq), gasit, görücü, elçi, he kahvesi, heybe götürme, kahvesini içmek, kız görme, kına, kına gecesi, yüz açma, söz helvası, söz pilavı, ayak açma hamamı, belli takma, el öpme, görüşe gitme, göz aydınlığına gitme, nişan atma, yüz görümü, yüzük takma, nişan bohçası və s.

Qaqauzlar toy mərasimlərini əsasən aşağıdakı mərhələlər üzrə həyata keçirirlər: kız isteme, baalantı/söz kesimi, goda/nişan, nişanlılık dönemi, düğün, düğün sonrası.

Qaqauz dilinin lüğət tərkibində toy mərasimləri ilə bağlı müəyyən ənənələri ifadə edən aşağıdakı söz və söz birləşmələri vardır: baalantı (elçilikdə razılığın əldə olunması), kişmiş aftası (nişandan sonrakı iki həftə), pelik türküsü (gəlinin saçı hörülərkən oxunan nəğmə), güve türküsü (bəy təraş olarkən oxunan nəğmə), kapı parası (gəlinlə bəy qız evindən çıxarkən uşaqların aldığı bəxşiş), ana topu (qayınana ve gəlinin bir-birinə verdikləri hədiyyələr), anatolu (gəlinin anasına verilən hədiyyə) bel bağlama (toyda gəlinin belinin qırmızı lentlə bağlanması), çiiz (cehiz), çotra (nişan), duak (duvaq), dünür (elçi), düün (toy), goda (nişan), güvey (bəy), kayınçu (qayın), kaynana, kaynata, konuşka (gəlin gətirdikdən sonra oğlan evində qonaqların evdə yediyi yemək yeməsi), kresnize (sağdıcın həyat yoldaşı), prost olma (köçməzdən əvvəl gəlinin ana-atası ilə halallaşması, xeyir-dua alması), saadıç (gəlinə və bəyə kömək edən şəxs), yavklı (nişanlı) və s.

Qeyd etmək lazımdır ki, toy leksemi ümumtürk yazılı abidələrində iki mənada – qonaqlıq, bayram və xanın iqamətgahı, düşərgə mənalarda işlənmişdir. KDQ-da müasir Azərbaycan dilində ifadə etdiyi mənada əsasən toy-düyün, daha çox isə düyün şəklində işlənmişdir. Azərbaycan dilində tərkibin ikinci hissəsi işləkliyini itirmiş, mərasim sadəcə toy leksemi ilə adlandırılsa da, türk, türkmən, eləcə də qaqauz dillərində "toy" sözü arxaikləşmiş və "düyün" leksemi işləkliyini mühafizə etmişdir. "Gagauzça-Rusça-Romınca Sözlük"də isə toy sözünün ifadə etdiyi mənalardan biri kimi evlilik mərasimi də verilmişdir: пир (ziyafət, şölən); бал (balo); свадьба (düğün) (Çebotar, P., Dron, İ., 2002).

Orxon-Yenisey abidələrindən gətirilmiş nümunədə düyün sözünün törün formasında işləndiyi müşahidə olunur: "...Türgis Kaganka kızımın ertenü ulug törün alı birtim. Türgis Kagan kızın ertenü ulug törün oglıma alı birtim..." (Türgiş xaqanına qızımı böyük mərasimlə gəlin verdim. Türgiş xaqanının qızını böyük mərasimlə oğluma aldım.) (Berber, 2009).

Türk və qaqauz dillərinin lüğət tərkibində yas mərasimi ilə bağlı sözlər

Ailə-məişət mərasimlərindən biri olan yas mərasimləri ilə bağlı leksika həm xalqın mədəniyyəti, dünyagörüşü, həm də sitayiş etdiyi dinə əsasən formalaşır. Qədim türk yazılı abidələri Orxon-Yenisey abidələrində doğum və ölümlə bağlı aşağıdakı leksik vahidlərə rast gəlinir: törü (törəmək, doğulmaq), kılınmak (qılınmaq, yaranmaq), tın (ruh, nəfəs, can), uçmaq (ruhun göyə uçmaqsı), sığıt/sığıtçı/sığıta (ağı, ağıçı, ağı demək), kurğan (kurqan), kergek boltı (vəfat etmək), yoğ (dəfn etmək) və s. (Cəmali, 2023).

Dilbər Camali Orxon-Yenisey abidələrində yas mərasimi ilə bağlı işlənmiş leksik vahidləri qədim türklərin dünyagörüşü, adət-ənənələri əsasında ifadə etmişdir: "İnsan vəfat etdikdə (kərgək boldu, uçdu, adırıldı, yok boldu, kaçtı), "tın"ı bədəndən çıxıb uçur, ölən şəxs öldüyü gün yox, fərqli mövsümlərdə dəfn olunur, ölüyə qurbanlar (yemlıg) verilir, yas (yoğ mərasimi) mərasimi təşkil olunur. Ölən şəxsin üzəri örtüklə (eşükəyi) örtülür, yasda ağı deyənlər gəlir (sığıtçı), ağı deyilir (sığıt), ölü yaxınları üz-gözünü cırır, saçlarını dartıb yolur, vəfat edən şəxsə daş abidə ucaldılır, öldükdən sonra cənnətə gedəcəyi barədə təsəvvürlər mövcuddur, ölən şəxsin sağ ikən həyatda öldürdüyü düşmənlərin sayı qədər balbal qoyulur" (Cəmali, 2023)

"Kitabi-Dədə Qorqud"da oğuz türklərinin qarşısıalınmaz ölüm hadisəsini qismət, alın yazısı ilə əlaqəli olması, əcəl gəldiyi, yəni vədəsi yetişdiyi zaman insanın öldüyünə inancla bağlı bir sıra fikirlər işlənmişdir: Əzəldən yazılmasa qul başına qəza gəlməz. Əcəl vədə yetməyincə (vaxt çatmayınca) kimsə ölməz. Ölən adam dirilməz. Çıxan can geri gəlməz. Allah Təaladan buyruq gəldi. Al qanadlı Əzrail ol igidin canını aldı, can bir əmanətdir, vaxtı gələndə verilən bu əmanət geri alınar.

Türk dilində yas mərasimi ilə bağlı leksik vahidlərə ağıt, ağıtçı, ahiret, başsağlığı, taziye, cehennemlik, cenaze, cenaze kaldırmak, çene bağlamak, ceset, defin, diri, ecel, emrihak, ebedileştirmek, gömme, kabir, kefen, merhum, mezar, miras, naaş, rahmet, ruh, tabut, vasiyet etmek, yas və s., frazeologizmlər və deyimlərə can çekişmek, can vermek, candan geçmek, canı çıkmak, canını almak, canına susamak, ebedi uykuya dalmak, gözü toprağa bakmak, olacakla öleceğe çare bulunmaz, ölenle ölünmez, ölüm döşeği, ruhunu şad etmek və s. misal göstərmək olar. Başsağlığı və taziye sözləri yas mərasimlərində rəhmətə gedənin yaxınlarına ünvanlanan dua, təsəlli xarakterli ifadələrdir: Allah rahmet eylesin; mekânı cennet olsun; Allah gittiği yerde utandırmasın; Allah taksiratını affetsin, "Geride kalanların başı sağ olsun; Allah sabırlar versin; merhumun geride kalanlarına Allah hayırlı uzun ömürler versin; Allah başka acı göstermesin; ölenle ölünmez, er geç hepimiz öleceğiz, Allah iman nasip etsin və s.

Qaqauzların yas mərasimləri, ümumiyyətlə, ölüm ilə bağlı özünəməxsus dünyagörüşü və inanc sistemləri vardır. İnsanın canının ürəyində olduğuna inanan qaqauzlar, bu nahiyəni can bucağı adlandırırlar. Onların inancına görə, insan ölərkən mələklər onun sinəsinə basaraaq canını alır. Pasxanın ilk günü və İsa peyğəmbərin doğum günü, yəni 25 dekabrda ölünü basdırmaq qaqauzlarda dini baxımdan düzgün hesab olunmur. Yas mərasimlərinə gələnlərə "can pidesi" təqdim olunur. Bunu ölünün qonaqpərvərlyi ilə əlaqələndirirlər.

Qaqauz dilində yas mərasimləri ilə bağlı işlənən söz və söz birləşmələrinə pomana, ölümnük bez (kəfən), ölümnük çıkısı (yas mərasimində xidmət göstərənlərə, əziyyəti keçənlərə paylamaq üçün nəzərdə tutulan dəsmal, yaylıq və s.), yol bezi ve ya köprü bezi (cənazə həyətə düşürüldüyü zaman tabutun qarşısına sərilərək üzərinə kolaç adlanan çörəklər qoyulan süfrə), ölüm patı (ölüm yatağı), canı uçmaa (öldükdən sonra ruhun göyə uçması), ölüm bulmaa (ölmək), ölüm görmää (ölmək), ölümden kalkmaa (dirilmək), merdiven kolacı (axirətə gedərkən ruha yardım edəcəyi inancı ilə\ bağlıdır) və s. aiddir. Qaqauzlar başsağlığı verərkən "Allah rahmet yelesin; topracığı bol olsun" deyirlər.

Türk və qaqauz dillərinin lüğət tərkibində mövsümi mərasimlərlə bağlı sözlər

Etnoqrafik leksikanın mühüm bir hissəsini mövsümi mərasimlərlə bağlı sözlər təşkil edir. Milli və dini baxımdan əhəmiyyətli sayılan və qeyd olunan günlər bayram hesab olunur. Mahmud Kaşğari "bayram" sözünün izahını aşağdakı kimi verir: "bayram, xalq şənliyi. Bir yer işıq və çiçəklə bəzəndiyi zaman "bədhrəm yer" deyilir ki, "könül açan yer" deməkdir. Bu sözün əslinin nə olduğunu bilmirəm, onu farslardan da eşitdim. Bununla birlikdə, oğuzlar bayram gününə "bəyrəm" deyirlər. Bu, sevinc və əyləncə günüdür. Oğuzlar dh hərfini y hərfinə çevirmişlər. Bəlkə də, bu kəlmə ayrı bir sözdür". (Kaşğari, 2006)

Qaqauz dilində isə bayram əvəzinə "yortu" sözü işləkdir. Qeyd etmək lazımdır ki, türk dilində də yortu sözünə rast gəlinir. "Türkçe Sözlük"də "yortu" sözünün izahı aşağıdakı kimi verilir: "Hz. İsanın həyatını, ölümünü, dirilməsini və müqəddəslərin həyatlarına təsir etmiş qüdrətlərini yad etmək məqsədilə kilsənin müəyyən etdiyi müqəddəs günlər" (12) "Türk dilinin etimologiya lüğəti"ndə yortu sözünün izahı "Hristiyan bayramı < 'yortu, resmî tatil günü, şenlik, donanma" (Eren, 1999) şəklində verilir. Göründüyü kimi, türk dilində "yortu" sözü xristian dini ilə əlaqələndirilir. Qaqauz dilində isə sadəcə müqəddəs günlər, dini bayramlar deyil, bütün bayramlar üçün yortu sözü işlədilir. "Yortu" leksemi qaqauz dilinə yunan dilindən keçmişdir. Qaqauz dili lüğətlərində yortu sözünə "праздник" (=bayram) izahı verilir. Yortu sözü bayram, yortulanmak (<yortu+lan+mak), "yortu tutma" isə "qeyd etmə" şəklində izah olunmuşdur.

Türk dilində "bayram" sözü ilə düzələn bir sıra söz, birləşmə və atalar sözləri vardır: bayramlık, bayramcalık, bayram ağası, bayram arifesi, bayram ayı, bayram bahşişi, bayram beyi, bayram etmek, bayram havası, bayram koçu, bayramı kara gelmek, bayram temizliği, bayram topu, bayram üstü, bayram yeri, bayram ziyareti, bayramdan bayrama, bayramda seyranda, iki bayram arası, arifeyi gösterip bayramı göstermemek, bayram değil seyran değil və s.

Türk xalqının qeyd etdiyi ən mühüm bayram dini mahiyyətli Ramazan və Qurban bayramlarıdır. Bu bayramların xalq üçün dəyəri folklor nümunələrində də öz əksini tapır. Bu nümunələrdə xalq mədəniyyəti, bayram ənənələri əks olunmaqla bərabər, mərasim leksikasına məxsus sözlərdən geniş istifadə olunmuşdur.

Akşam ezanı dinlemek
Sahur vakti yemek yemek
Ramazan'a mahsus şeydir
Gece davulcu söylemek.

Gözaydın hepimize,
Mübarek günler bize,
On bir ayın sultanı,
Hoş geldin evimize. (Özarslan, 2017)

Bildiyimiz kimi, qədim türklər ilin müəyyən dövrlərində, müharibələrdən sonra, xaqanın seçilməsi kimi əlamətlər günlərdə müqəddəs hesab etdikləri məkanlarda qurban kəsərmişlər. Tarixi mənbələrdə türklərin dağlara, ağaclara, meşələrə, ata-babalarının ruhuna və s. qurbanlar kəsdiyi də verilmişdir. İslam dinini qəbul edəndən sonra türklər qurban ənənəsinə dinin buyurduğu kimi davam etmişlər.

Ağ buğdayın özüyüm,
Ben kurbanlık kuzuyum;
Doğum yerim Bademler
Şanlı bir Türk kızıyım. (Özarslan, 2017)

Ümumiyyətlə, universal xarakter daşıyan qurban ritualı əski dönəmlərə aiddir. İki məqsədlə, dinin buyruğu və müəyyən niyyətlə bağlı olaraq həyata keçirilir. Qədim türklər qoyun, öküz, dəvə, ceyran, xüsusilə də at qurbanı etmişlər. Qurban əti "iduq", əti bişirən isə "qazançı" adlanırdı.

Niyət qurbanı ilə bağlı türk folklorundan nümunə:
Ay buluttan geridir
Bura harman yeridir
Ben yarime kavuşsam
Kurban kesmek yeridir. (Özarslan, 2017)

Xristian dinini qəbul etmiş qaqauzlar, yəhudiliyi qəbul etmiş karaim türkləri də bu ənənəni davam etdirirlər. Qurban ediləcək heyvan "Allahlık" adlandırılır və digər heyvanlardan ayrı saxlanılır. Qurban kəsilərkən sağ budu keşişə, qalan hissəsi isə digər qonaqlara verilir.

Qaqauzlar bayramları "gezen" və "gezmeyen" olaraq iki yerə ayırırlar. Gezmeyen yortular hər il eyni tarixdə qeyd olunan bayramlardır. Gezen yortular isə "Paskalya" bayramı ilə bağlı bayramlardır, Ay təqviminə əsasən müəyyən olunur. Dini bayramlardan başqa üç böyük milli qaqauz bayramı vardır: Kasım, Canavar yortuları, Hederlez. Hederlez və Kasım sözləri türk mənşəlidir. Hederlez Ay Görgiy Günü, Kasım yortusu isə Ay Dmitriy Günü də adlanır. Qaqauz adət-ənənəsinə görə il iki mövsümə bölünür. Qışın ilk günü Sveti Dimitrinin günü (noyabr ayında), yazın ilk günü (may ayında) Sveti Görginin günü hesab olunur.

Bolqar dilindən qaqauz dilinə keçən dini terminlərin əvvəlinə "ay" hissəciyi işlənir. Urum mənşəli "ayozlu" lekseminin qısaldılmış variantı olan "ay" qaqauz dilinə urum dilindən keçib, mənası mələk, müqəddəs deməkdir. Eyni zamanda ay əvəzinə sveti sözü də işlənməkdədir. Qeyd etmək lazmdır ki, Balkan yarımadasında yaşayan qaqauzlar daha çox urum kilsəsinə bağlı olduqları üçün dini bayramların urum variantını işlədirlər: Ay Varvara günü, Ay Vasil günü, Ay İvan günü, Ay Todur günü, Ay İliya günü, Ay Andrey günü günü, Ay Görgiy günü, Ay Dmitriy günü və s. Bu kimi bayramlarda müəyyən ənənələr, ayinlər həyata keçirməklə bərabər, bayramla eyni adı daşıyan şəxslərin də ad günü də qeyd olunur.

Türk dünyasında yazın gəlişi ən qədim dövrlərdən bayram kimi qeyd olunmuşdur. Fars dilindən tərcümədə "yeni gün" mənasını ifadə edən Novruz bayramı türk xalqlarını birləşdirən mövsümi bayramlardandır. Qaqauzlar yazın gəlişini Novruz adı ilə deyil, "Baba Marta" və ya "İlkyaz Yortusu", "Hederlez" bayramları ilə qeyd edirlər.

Kolada qış bayramları içərisində mühüm bayramlardan biridir. Qaqauzlar kolada bayramını Hz. İsanın doğum günü münasibətilə qeyd edirlər. Qaqauzların Besserabiyaya köçməzdən əvvəl yaşadıqları Şərqi Bolqarıstanda işlənən kolada sözü bolqar dilindən alınmışdır. Bəzi qaqauz kəndlərində Kreçun sözü də Kolada sözünün sinonimi kimi işlənir. Bu söz moldavan dilindəki Kraçun sözündən düzəlmişdir. Qaqauz dilində Kolada bayramı ilə əlaqədar bir sıra söz və söz birləşmələri vardır. Kolada bayramına hazırlıq görülən ev Kolada evi, oxunan nəğmələr Kolada türküleri, Kolada avaları; koladacıları qəbul edərkən oxunan dualar Kolada molitvası; ənənəvi çörəyi Kolada kolacı; koladacıların başlarına bəzək üçün qoyduqları papaqları bəzəmək üçün kağızdan hazırlanan güllər Kolada çiçää; koladadan əvvəl tutulan oruc Kolada orucu; öncəki həftə kolada aftası; əvvəlki gün Kolada ajunu; əvvəlki gecə Kolada gecesi; ilk günü Kolada günü; böyük koladacılar dəstəsi Büük Kolada; kiçik koladacılar dəstəsi Küçük Kolada.

Ən mühüm xristian bayramlarından olan Pasxa (Paskalya) qaqauzlar tərəfindən də təntənə ilə qeyd olunur. Xalq arasında "Paskellä", "Büyük Paskella" deyilir. Kilsə təqviminə görə qeyd olunan bayramın tarixi aprel ayının ortaları, may ayının əvvəlləri arasında dəyişir. Bayram üçün hazırlıqlar bir həftə əvvəl başlanır, evlər təmizlənir, təmirə ehtiyac varsa, təmir edilir. Kozanak (paskalya ekmeği) adlı şirniyyat bişirilir, yumurtalar boyanır. Bayram cümə ertəsi günü kilsədə edilən ayinlə başlayır, bazar günü səhər "serpme" (müqəddəs suyun səpilməsi) ilə bitir. Pasxa ərəfəsində insanlar kozanak, boyalı yumurta, şərab və şamla kilsədəki ayində iştirak edirlər. Kilsədən evə od gətirilir. Bir həftə davam edən Pasxa bayramı İspas yortusuna qədər insanlar bir-birinə "Hristos voskres; Voistina voskres" (İsa dirildi) deyərək salamlaşır, bayramlaşır.

Bundan başqa qaqauzlar Küçük paskalya bayramını da qeyd edirlər. Böyük paskalyanın 9-cu günü qeyd olunan bu bayramda rəhmətə gedənlər yad edilir. Qəbiristanlığa gedərək ayinlər həyata keçirilir. Məzarların üzərinə xaç formasında şərab tökülür. Yeməklər paylanır. Buna qaqauzlar "iliştirme" deyir. İliştirmə edilərkən yemək paylayan şəxs: "Olsun … (vəfat edənin adı) canı için" deyir, alan isə "bo do prosti" (Allah günahlarını əfv etsin) deyə cavab verir. Daha sonra isə süfrə qurulur və yeməklər yeyilir.

**NƏTİCƏ**

Zəngin maddi mədəniyyətə sahib olan türk xalqlarının dillərinin leksik tərkibində mədəni izlər özünü aydın göstərir. Etnoqrafik leksika qədimliyi ilə seçildiyi üçün bu sözlərin öyrənilməsi xalq mədəniyyətinin dil vasitəsilə məhz tarixi aspektdən öyrənilməsinə xidmət edir. Türk dillərində etnolinqvistik leksikanın mərasimlərlə bağlı qatının müqayisəli öyrənilməsi türk xalqlarının ortaq tarix və mədəniyyətə malik olduğunu, eyni soy-kökdən gəldiyini aşkara çıxarmağa kömək edir. Eyni zamanda fərqli dinlərə sitayiş etmələri türk və qaqauz dillərinin leksikasında özünü açıq şəkildə göstərir. Müxtəlif dini inanc sistemi və fərqli xalqlarla tarixi və mədəni əlaqələr türk xalqlarının dünyagörüşündə və beləliklə, dilin leksik fondunun zənginləşməsində müstəsna rol oynamışdır.

**ƏDƏBİYYAT SİYAHISI**


1. Berber, O. (2009) Türk Kültüründe Eğlence Ve Birlok Unsuru Olarak Düğünler, Süleyman Demirel Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi, Sayı: 10, 1-11
2. Cəmali, D. (2023)Orxon-Yenisey abidələrinin linqvokulturoloji tədqiqi. Bakı, "Elm və təhsil", 212 s.
3. Eren, H. (1999) Türk dilinin etimolojik sözlüğü, Ankara, 512 s.
4. Gaydarji, Gavril ve diğer. (1973) Gagauzsko-Russko-Moldavskiy Slovar', Moskva: (yayım yeri yok)
5. Güngör, H., Argunşah, M. (1991) Gagauz Türkleri: tarih, dil, folklor ve halk edebiyatı. Kültür Bakanlığı, 377 s.
6. Kaya, D. (1996) Düğünlerimizle İlgili Terimler Ve Bunlarin Fonksiyonel Özellikleri. Milli folklor, Bahar-Yaz, S. 29-30, s. 23-29
7. Kazımov, İ, (2010) Müasir türk dillərinin müqayisəli leksikası, II cild, Bakı, "Təknur" mətbəəsi, 2010, 400 s.
8. Məmmədli, İ, (2009) "Azərbaycan dilinin etnoqrafik leksikası". Bakı "Elm və Təhsil" nəşriyyatı, 272 s
9. Özarslan, M. (2017) Türk Manilerinden Seçmeler. MEB, 176 s.
10. Çebotar, P., Dron, İ. (2002) Gagauzça-Rusça-Romınca Sözlük. Kişinyev, 740 s.
11. Həsənli-Qəribova, Ş. (2005) XI-XII əsrlər türk dillərinin etnoqrafik leksikası. Bakı, 325 s.
12. Kaşğari, M. (2006) Divanü-luğat-it-türk". Tərcüməçi: R.Əsgər. 4 cilddə, I cild, 512 s.
13. https://sozluk.gov.tr/


# AZƏRBAYCAN DİLİNİN ŞAMAXI ŞİVƏSİ


**FİL.Ü.F.D.SEVİNC QƏMBƏROVA CƏBRAYILOVA ADİLƏ**

Xəzər Universiteti Xəzər Universiteti

Dillər və ədəbiyyatlar departamenti İbtidai sinif müəllimliyi

sevinc.qemberova@mail.ru adilacabrayilova888@gmail.com

BAKI, AZƏRBAYCAN BAKI, AZƏRBAYCAN


## XÜLASƏ


Məqalədə Azərbaycan dilinin Şamaxı şivəsi tədqiqata cəlb olunmuşdur. Şamaxı şivəsi Azərbaycan dili dialektlərinin ənənəvi bölgüsündə (Məmmədağa Şirəliyev) şərq qrupuna aid edilmişdir. Dialekt sisteminin müasir tələblərə cavab verən son təsnifində (Elbrus Əziziov) isə bu şivə şimal-şərq ləhcəsinin Bakı-Şamaxı şivə qrupunda yerləşdirilmişdir. Şamaxı şivəsinin Azərbaycan dilinin ən zəngin və bütün yaruslarında (fonetik, leksik və qrammatik) özünəxas səciyyəvi xüsusiyyətləri olan şivələrindən biridir. Məqalədə şivədə müşahidə olunan fonetik xüsusiyyətlər (diftonqlar, səsdüşümü, səsartımı, səslərin yerdəyişməsi və s.) nümunələr ilə təqdim olunmuşdur.

Şivənin rəngarəng leksikasında istifadə edilən sözlər (alızmax- qarmalamaq, tutmaq; baddamac- – yaxşı bişirilməmiş; cərgə-kotana və arabaya qoşulan birinci cüt kəl və ya öküz; balamürsəl-qırmızı qabıqlı turş nar; tatırqamağ-büdrəmək və s.) verilmişdir. Eyni zamanda Şamaxı şivəsinin qrammatik səviyyəsində olan xüsusiyyətlər də (halların semantikası, feilin şəkilləri, feili bağlama və məsdərlər, köməkçi nitq hissələri və s.) araşdırılmışdır. Tədqiqat işinin hazırlanarkən təsviri, müşahidə və müqayisə metodlardan istifadə edilmişdir.

**AÇAR SÖZLƏR: şamaxı şivəsi, dialekt leksikası, səciyyəvi xüsusiyyətlər**

## GİRİŞ

Dilin lüğət tərkibinin qeyri-fəal hissəsinə daxil olan, yalnız müəyyən bölgələrdə işlənən və başa düşülən yerli-məhəlli sözlərə dialekt sözləri deyilir. Belə sözlər dilçiliyin "Dialektologiya" bölməsində öyrənilir. "Dialekt" və "şivə" anlayışları bir qədər fərqli anlayışlardır. Belə ki, dialekt daha geniş ərazini, şivə isə dialekt daxilində daha məhdud bölgəni əhatə edir. Dialektin daxilində ləhcə fərqləri özünü göstərir.Dialekt və şivə (ləhcə) sözləri, əsasən, məişət (danışıq) üslubunda işlənir. Bədii üslubda isə fərdiləşdirmək, təbii, inandırıcı təsvir etmək üçün obrazın dilində də dialekt sözləri işlədilə bilir. Elə dialekt sözləri də olur ki, bu və digər söz sənətkarı öz əsərində işlətdikdən sonra ümumişlək sözə çevrilir (sayrışmaq, tərəcə və s.).

Əslində dialekt sözləri ədəbi dilin lüğət tərkibinə daxil deyil, yəni onları şərti olaraq ədəbi dilin ümumişlək olmayan sözlərindən bir qrupu kimi götürürük. Lakin nəzərə alanda ki, vaxtilə dilimizdə işlənmiş sözlərin bir qismi sonralar arxaikləşərək keçib dialekt və şivələrdə "yaşayır", onda ədəbi dilimizin tarixi inkişafını öyrənmək baxımından belə dialekt sözləri də bu gün dilimizdəki fəal sözlər qədər əhəmiyyətli sayıla bilər.

Azərbaycan dilində dialekt fərqlərinin olmasını ilk dəfə Firidun bəy Köçərli müəyyənləşdirmişdir. Müasir dialektoloji ədəbiyyatda dialekt və şivə terminləri dilin dialekt bölünməsinin vahidi hesab olunur; Bakı, Şamaxı, Şəki, Quba, Ordubad, və.s dialekt, Salyan, Qax, Zaqatala, Cəbrayıl, və.s şivə adlandırılır. Məmmədağa Şirəliyev dialekt və şivə terminlərinin fərqini belə müəyyənləşdirir: "Şivə öz xüsusiyyətləri ilə daxil olduğu dialektdən kəskin ayrılmır; ümumilik fərqdən üstün olur, zira fərq o qədər cuzidir ki, onu dialekt hesab etmək üçün əsas vermir. Bununla birlikdə fərq o qədər mühümdür ki, onu şivə kimi ayırmağa haqq vermir."

Məmmədağa Şirəliyev Azərbaycan dilinin dialekt və şivələrinin təsnifindən söz açarkən onların bölgüsünü dörd qrup əsasında oxuculara təqdim etməkdədir. Şamaxı dialekti Məmmədağa Şirəliyevin bölgüsünün şərq qrupu dialekti içərisində yer almaqdadır [2, səh.19]. Elbrus Əzizov Azərbaycan dilinin dialektlərini üç dialektə (ləhcəyə) bölür: şimal-şərq ləhcəsi; qərb ləhcəsi yaxud orta ləhcə; cənub ləhcəsi. Elbrus Əzizovun təsnifatına görə şimal-şərq ləhcəsi Bakı-Şamaxı bölgələrinin şivələrini əhatə edir [3,səh.280].

Azərbaycan dilinin Şamaxı dialektinin bir sıra özünəməxsus fonetik xüsusiyyətləri vardır:

Alçalan diftonqlarda birinci sait dolğun, ikinci sait isə birinciyə nisbətən zəif tələffüz olunur. Birinci sait açıq (o, ö, a, ə), ikinci isə qapalı saitlərdən (u, ü, i) ibarət olur: Məs: ou-touğ və.s [4, səh.51].

Yerdəyişmə də şivələrə xas olan fonetik hadisələrdəndir. Yanaşı yerdəyişmə də qonşu səslər dəyişir. Məs: rp>pr kiprix' (Şam.) dy>yd maydan (Şam.)[4, səh.75].

Azərbaycan dili şivələrində sonrakı uzanma hadisəsi geniş yayılmışdır. Məs: zə:mət , də:liz , mə:lə (B.,Muğ.,Şam.,Nax.) , mə:m, sə:n, də:z (B., Şam., Muğ., Nax., Qb., Çəm.) və.s [4, səh.48].

Uzun i səsi söz köklərində və köklə şəkilçi sərhədində y, n samitlərinin düşməsi nəticəsində meydana çıxır; Məs: başdi:r, isdi:r, eli:r, təmizzi:r (B.,Muğ., Şam.). [4, səh49].

Söz əvvəlinə samit artırılması.

l səsinin artırılması; Məs: abgərdən>ləbgərdən (Ş.) [5, səh.34].

Söz sonunda samit düşümü; Məs: şirəpus<şirəpust <<divarı ağartmaq üçün dəri>> (B.,LM.,Ş) [5. səh.36].

Uzun saitlərdə səsin dərəcəsi. Bir dərəcədə , yəni uzun saitdə səsin keyfiyyəti və dolğunluğu əvvəldən axıra qədər bir dəərəcədə olur; Məs:odıi,adıi, dava, qomax, lənət,məlum (Şə.,B.,Ş.,Muğ.) [2, səh.30].

Saitlərin əvəzlənməsi. Arxsıra saitlərin önsıra saitləri ilə əvəzlənməsi.

a>ə. a səsinin ə səsi ilə əvəzlənməsi hadisəsinə Azərbaycan dilinin bütün dialekt və şivələrində, demək olar ki, az və ya çox dərəcədə rast gəlmək mümkündür.Lakin bu hadisə şərq və cənub dialekt və şivələrində daha geniş yayılmışdır; Məs:xəlçə ərəbə (B.,Ş.,Muğ.,Ord.,Qaz-Qıx.,İ.Su,Zər.) və.s [2. səh39]

Açıq saitlərin qapalı saitlərlə əvəzlənməsi: a>e. a səsinin e səsi ilə əvəzlənməsi hadisəsi daha çox şərq və şimal dialekt və şivələrinə aiddir. Bu hadisəyə səbəb söz ortasında olan y səsidir. y səsinin təsiri altında açıq sait (a) qapalı saitlə (e) əvəzlənir; Məs:qeyiş, qeymağ, qeysi, qeytana, qeynana, qeyid, qeyin (B., Q., Ş.,) [2, səh.48-49].

Azərbaycan dilinin Şamaxı dialektinin bir sıra özünəməxsus leksik xüsusiyyətləri müşahidə olunmuşdur. Dialektlərin lüğət tərkibinə daxil olan sözləri iki qrupa bölmək olar: 1.Ədəbi dillə ümumi olan leksika 2. Spesifik leksika (xalis dialekt sözləri, məhəlli sözlər).Ədəbi dillə ümumi olan leksika ümumxalq səciyyəli sözləri əhatə edir. Belə sözlərin işlənməsində ərazi məhdudluğu yoxdur; məs.: mən, sən, əl, torpaq, su, getmək, bilmək, danışmaq və s. [4, səh272]

Spesifik leksikaya məhdud ərazidə işlənən, ədəbi dilin lüğət tərkibinə daxil olmayan məhəlli sözlər aid edilir. məs.: püsəx`"narın yağış"( Qaz.,Zər.),arğaz "arıq" (Qaz., Tov.,Ş.) [4, səh273]. Spesifik dialekt sözləri işlənmə arealına gö- rə iki qrupa bölünür: 1)yalnız bir dialektdə işlənənlər 2)bir neçə şivədə işlənənlər: törə "gödək" (Şam., Ord., Qaz., Şş., B.), dağar "lovğa" (B., Şam.,Tov., S., Sab.), dingə "başa bağlanan sarı parça" (Şam., G., Qaz., Ord.) [4, səh.273].

Alızmax (Şamaxı,Bakı) - qarmalamaq, tutmaq. –Gülbala uşağı alızıyıb.(Şamaxı) [1,səh.22].

Anqalı (Şamaxı) - sərsəri, dəli. –Adə, sən nə anqalı adamsan. [1,səh.24].

Baddamac (Şamaxı) – yaxşı bişirilməmiş.

Baddamac eləməy (Şamaxı) – yaxşı bişirməmək. –Quymağı baddamac elədün, biz yiniyəcöüg. [1, səh.34].

Bağala (Şamaxı) – moruq mürəbbəsi. –Bağala çox daddı olur. [1, səh.35].

Balağagirən (Şamaxı) - fişəng növü. [1,səh.37].

Balamürsəl (Şamaxı) - qırmızı qabıqlı turş nar. –Bu il bazara balamürsəl gəlmir [1, səh.37].

Bazbırıtdı (Şamaxı) - boylu-buxunlu , iribəndli. –Mənim əmim bazbırıtdı ola-ola çox qorxacağdı. [1,səh.44]

Canəzirrig (Şamaxı) - naxoşluq. –Canəzirrig adamın canını üzür. [1, səh.71].

Cərgə (Şamaxı)-kotana və arabaya qoşulan birinci cüt kəl və ya öküz. –Kəllər cəkmədi , cərgə gətirməyə adam yolladım. [1, səh74]

Qaranal (Şamaxı,Kürdəmir) - nalsız. –Qaranal heyvan uzax yola minilsə,dırnağları dağılar. (Şamaxı) [1,səh281]

Qəfilləmə(Şamaxı) - qəfildən. –Dağdan daşdan qəfilləmə düşdü. [1, səh290]

Qəmət (Şamaxı) - cavan qoz ağacı. –Çayın qırağındakı qəməti çırpdım.

[1, səh292]

Murğuturş(Şamaxı) - xörək adı. –Apar çolpanı kəssir, murğuturş bişirəcəm. [1, səh363]

Nazbalınc (Culfa,Şərur) – Qu tükündən düzəldilmiş iri balış. [1, səh.370].

Nazbalış (Şamaxı,Şəki,İrəvan) - bax nazbalınc. –Nazbalış qu tükünnən olar.(Şamaxı) ; -İki dənə nazbalışımız var.(Şəki) [1, səh.370].

Navərd (Şamaxı) - toxuculuq dəzgahında parçanın sarındığı hissə. –Qoz ağacının nəvərdi daha yaxşı olur. –Toxıdığım yəylığ nəvərdün üsdə qaldı. [1. səh.374].

Nifusət (Şamaxı) - bədbəxtlik. –Səni nisufət basıb. [1. səh.375].

Nimdar (Şamaxı, Astara, Bakı, İsmayıllı, Lənkəran, Salyan) - döşəkcə. –Oturrmo:un qoyun nimdar gətirim(Şamaxı); -A:z Səknə xanım , nimdarı at ora, aton ossun.(Salyan) [1. səh.375].

Nimdər (Şamaxı,İsmayıllı,Salyan) - bax nimdar. -Nimdəri gətir altıma qoyım(İsmayıllı) [1. səh.375].

Paytaxda (Şamaxı) - toxucu dəzgahının lingi. -Bu corab paytaxdəyə necə davam eliyəcəy.[1. səh.395].

Pənbəduz (Şamaxı) - quş adı. –Göy guruldiyəndə pənbəduz əyağlarını yuxarı qalxızar ki, göy düşəndə saxlasın [1. səh.399].

Siğirdili (Şamaxı) - arpa və ya qarğıdalı unundan bişirilə, uzunsov, qalın sac çörəyi. –siğirdili qalındu [1. səh.436].

Sığırdili (Şamaxı,Zəngilan) - bax siğirdili. –Uşaqlar sığırdilin çox sevillər.(Zəngilan)[1, səh.432].

Şudəftin(Şamaxı) - toxuculuq dəzgahının bir hissəsi. –Şudəftini bərk vur, az qumaş olsun [1, səh.473]

Tatırqamağ (Şamaxı) - büdrəmək. – At elə tatırqadı ki, az qaldım su:a yıxılam.[1, səh.483].

Urfalığ (Şamaxı,Saatlı,Lənkəran) - urva saxlanan süfrə,qab,tabaq. –Öydə urfalığda un yoxdı(Şamaxı) [1, səh.519] .

Zınqın (Şamaxı) - tut çərpmaq üçün ağac [1, səh.560].

Yazıpişiyi (Şamaxı,Gədəbəy,Daşkəsən,Qazax,Tərtər,Ucar) - çölpişiyi. –Bizim yerdə yazıpişiyi çox olur.(Şamaxı) [1, səh.544].

Kirdiki (Şamaxı,Quba) - bərk. –Kirdiki armudu yiəndə bərkliginnən dişlərim ağrıdı.(Şamaxı)[1, səh.255].

Basacağ (Şamaxı) - araba cağlarının keçdiyi deşikli ağac. –Ərəbəmün basacağı sınmışdı, təzəsin qayırtdırıb taxdım. [1. səh40]

Döşbağı (Şamaxı,Naxçıvan,Şuşa) - atın döşündən keçirilən yəhərbağı. –At yaxşı çıxanda döşbağı gücə düşür.(Şamaxı) [1. səh143]

Mürginə (Şamaxı) - pas. –Dəmirdə mürginə var. [1.səh365]

Alapörtü(Şamaxı,Bakı) - ala-çiy,yarıbişmiş,yaxşı bişməmiş. –Xörəy alapörtüdi, yeməg olmır(Şamaxı) [1.səh20]

Kömürdannığ (Şamaxı) - kömür saxlanılan yer. –Kömürdannığdan kömür qurtarıb. [1.səh261]

Köndalan (Şamaxı) - kobud. –Həsən yaman köndalandı [1.səh261]

Küç-künar (Şamaxı) - künc-bucaq. –Arvad itirdiyi qeyçidən ötəri öyün elliy küç-künarın axtardı,tapa bilmədi [1.səh264]

Odulmayı (Şamaxı) - xörək adı. -Əməköməci odulmayası başqalarınnan daddıdı. [1.səh379]

Əl (Bakı, Salyan, Şamaxı, Şuşa) - tərəf. –Oların öyləri sağ əldədi (Şamaxı) [1.səh156]

Ərişdəməg (Şamaxı) - təmizləmək.[1.səh165]

Girt:Girt vurmağ(Şamaxı) - hərlənmək,gəzmək. –Bı bün aləmi girt vurmışam.[1.səh184]

Girvə (Salyan,Şamaxı,Şəki) - şaxta (Salyan,Şamaxı).[1.səh184]

Külbələməg (Şamaxı) - təndirin külbəsini bağlamaq. -Bu külbələməg təndiri soyudacağ. [ 1, səh266]

Küpi (Şamaxı) – qamışdan qayrılıb üzərinə ip sarınmış alət (toxuculuqda işlənir) – Küpini ayağ altda qoyma. [1, səh268]

Şivələrin lüğət tərkibində tarixi təbəqələşmə : Şivələrin lüğət tərkibində keçmiş həyat tərzi, adət-ənənələr, qohumluq əlaqə- ləri, köhnə təsərrüfatla bağlı sözlər qorunub saxlanmışdır. Belə sözlər şivələrdə müxtəlif şəkildə işlənməklə tayfa dili elementlərini özündə yaşadır.

Tayfa məfhumu bildirən sözlər. Şivələrdə tayfa, nəsil, ailə mənasında uruğ, (Şam.,Muğ.) [4, səh.276].

Qədim türk sözləri. İlkin mənasını və fonetik tərkibini saxlayan sözlər; Məs: becid ”tez, cəld“ (B., Şam., Ord., Qb.) [4, səh.277].

İlkin mənasını saxlamaqla fonetik dəyişikliyə uğrayan sözlər; Məs: çözələmək ( Şam., Şir., Sab.) [4, səh. 277].

Azərbaycan dilinin Şamaxı dialektinin bir sıra özünəməxsus qrammatik xüsusiyyətləri də müşahidə olunur:

Mənsubiyyət şəkilçisinin şivələrdə işlənməsi. Birinci şəxsin təkində -m, -ım4. -ım4 şəkilçisinin damaq və dodaq variantları şivələrdə müxtəlif şəkildə yayılmışdır. Bakı, Şamaxı, İsmayıllı, Sabirabad,Şirvan və Salyan şivələrində birinci şəxsin təkində yalnız -m, -ım, -in şəkilçisi işlənir. Məs:Əlim, donım, ütim və.s [4. səh.124].

Üçüncü şəxsin tək və cəm mənsubiyyət şəkilçiləri şivələrdə müxtəlif şəkildə yayılmışdır . Bir qrup şivələrdə şəkilçinin yalnız damaq variantı -ı, -i, -sı, -si özünü göstərir. Buraya Şamaxı, Dərbənd,Şəki, İsmayıllı, Muğan şivələri daxildir. Məs: inegi, atı,atası,quyuni və.s [4, səh.133].

Şivələrdə kəmiyyət kataqoriyası əsasən -lar, -lər şəkilçisi ilə ifadə olunur. -lar, -lər şəkilçisi isimlərə əlavə olunaraq , mənsubiyyət anlayışı ifadə edir ; Məs: -Bizim dədə-babalar keçmişdə yaxşı işdərdə olıb (Şam.) [4, səh.163].

Üçüncü şəxsdə “idi” hissəciyiin işlənməsinə görə şivələr üç qrupa bölünür . Təbriz, Şamaxı, Ordubad, Zaqatala şivələrində damaq variantı (-dı,-di) üstünlük təşkil edir. Məs: başmaxçıydı, döx’düriydi, o:lanıydı, qo:mıydı və.s

Halların semantikası və sintaksisi.Yönlük hal semantik baxımdan çoxcəhətlidir.Bunu yönlük halın qrammatik əlamətinin digər halların əvəz etməsində görürük.Yönlük hal adlıq hal mövqeyində. Məs:-Sağ olsun,mını saxlayan arvada,kindiyəcən saxlayıb.[4. səh 110-111].Təsirlik hal yönlük hal mövqeyində. Məs: Atdılar kəndə sarı üz qoydılar (Şam.) [4. səh115-116].Yerlik hal məkan mənası əsas olmaqla müxtəlif məna çalarlarına malikdir: -hal-vəziyyət bildirir; məs.:-Mən onı həmişə işdə-gücdə, əlləşməkdə görmüşdüm (Şam.). [4, səh.116].

Şivələrimizdə ən çox işlənən əmr, xəbər, arzu, şərt və bacarıq (bəzən bu şəkil ayrı verilir) şəkilləridir.Əmr şəklinin I şəxs cəmində şəxs şəkilçilərinin işlənməsinə görə şivələr üç qrupa bölünür: Bakı, Şamaxı, Muğan və Ağcabədi (Yastıyol kənd şivəsi) şivələrində -ağ, -əg şəkilçisi geniş yayılmışdır [4, səh.214]. Bəzi şivələrdə əmr şəklinin I şəxs cəmində -ağun//-əgün, əyün (Şam., Cəl.) [4, səh214]

Feili bağlamalar . Şivələrdə feili bağlama şəkilçiləri geniş yayılmışdır. Bu şəkilçilərin bir hissəsi ədəbi dillə eyniyət təşkil etsə də, digər qismi yalnız ayrı- ayrı şivələrdə yayılmışdır. Şivələrdə tez-tez işlənən feili bağlama şəkilçiləri; Məs: -iban4 (Qb., Şam., Qob., İs., Zaq., Q., Qar.): alıban, gəlibən və s. Məsdər. Bakı, Şamaxı, Qobustan, İsmayıllı, Muğan şivələrində məsdər şəkilşisi-mağ, -məg. [4, səh.232].

Köməkçi nitq hissələrinin işlədilməsi. Qoşma. Şivələr qoşmalarla zəngindir. Spesifik qoşmalar: alahi ”başqa” (B., Şam., Mər., Muğ.) [4, səh.236]. Bağlayıcılar . Şivələrdə qoşmalarla müqayisədə bağlayıcılar zəif mövqeyə malikdir. Quba, Şəki, Dərbənd, Tabasaran, Şamaxı, Balakən, Qax, İmişli şivələrində ya, nə bağlayıcıları ədəbi dildəki mənasından əlavə, bir-birinin funksiyasını da yerinə yetirir; məs.:- Nə isdər gidər, nə isdər qalar(Qb.);- Ya ləzgi dögü, ya burdan dögü (Dər.) və s. [4, səh.237].

**NƏTİCƏ**

Azərbaycan dialektologiyası dilimizin şivələrini öyrənən dilçilik sahəsidir. Dialekt dilin məhdud ərazisində işlədilən növüdür.Azərbaycan dilinin Şamaxı dialekti şimal-şərq qrupu dialektinə daxildir.Bu dialektlər şimal xüsusiyyətləri ilə yanaşı, qərb və cənub ləhcələri üçün səciyyəvi olan xüsusiyyətlərə də malik olduqları üçün dildə xüsusi ləhcə əmələ gətirmir. Şamaxı dialektinin xüsusiyyətləri ümumiləşdirilmiş və fonetik, leksik, qrammatik səciyyədə qruplaşdırılmışdır.Mövzunun gələcəkdə genişləndirilərək dissertasiya işi və monoqrafiya səviyyəsində araşdırılması nəzərdə tutulmuşdur.

**ƏDƏBİYYAT SİYAHISI**

1. Azərbaycan dilinin dialektoloji lüğəti. Bakı, Şərq-Qərb 2007
2. Şirəliyev Məmmədağa. Azərbaycan dialektoligiyasının əsasları. Bakı, Şərq-Qərb, 2008
3. Əzizov Elbrus. Azərbycan dilinin tarixi dialektologiyası (Dialekt sisteminin təşəkkülü və inkişafı) Təkmilləşdirilmiş ikinci nəşri. “Elm və təhsil” Bakı -2016
4. Məmmədli Məhərrəm. Azərbaycan dialektologiyası. Bakı, Zərdabi LTD,2019
5. Tahirov İlham. Dialekt leksikasında alınma sözlər. Bakı, Nurlan, 2004
6. Zabitə Teymurlu. Azərbaycan dilinin dialekt leksikası. Dərs vəsaiti. Bakı, BMU nəşri, 2020

# OĞUZ TAYFALARININ BƏZİ NAXÇIVAN TOPONİMLƏRİNİN ETİMOLOGİYASINDA İZİ

**CƏMİLƏ MƏHƏRRƏMOVA**
AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutu
CemileNihatMeherremova@gmail.com
NAXÇIVAN, AZƏRBAYCAN

**XÜLASƏ**

Məqalədə Naxçıvan ərazisində olan oğuz tayfalarının adı ilə bağlı yaranan toponimlərdən bəhs olunur. Məlumdur ki, Nax¬çıvan Muxtar Respublikası toponimlərinin leksik tərkibində öz izini yaşadan tayfalardan biri də ulu əcdadımız, soy kökümüz olan oğuz tayfalarıdır. Oğuzlar çox qədim tarixə malikdir. Məqalədə, əsasən, oğuz Qaraçuq, Böyukdüz və s. kimi oykonimlər tədqiqata cəlb olunmuşdur. Naxçıvan ərazisində yerləşən bu oykonimlərin struktur quruluşu, leksik –semantik xüsusiyyətləri və s. kimi araşdırmalar burada öz əksini tapmışdır.

**AÇAR SÖZLƏR: Oğuz tayfa adı, etnotoponim, Qaraçuq, Böyükdüz**

"Türk epos ənənəsindəki əcdadlar düzümündə özünəməxsus şəkildə yer almış və Ulu Türk adı ilə kodlaşmış ilkin obrazın, dünyanın yaradılması aktı ilə bağlılığı və bütövlükdə xaos-kosmos qarşıdurmasından törəməsi kosmogenez haqqındakı təsəvvür sistemini bəlli edir. Bu baxımdan Ulu Türk obrazı mədəni qəhrəmana aid cizgilərə sahib olmaqla, həm də Boz Qurd, Oğuz, Qorqud Ata və başqaları ilə yanaşı türk dünya modelinin qurucularından ilkinidir"

R.Əlizadə

## GİRİŞ

Naxçıvan Muxtar Respublikası toponimlərinin leksik tərkibində öz izini yaşadan tayfalardan biri də ulu əcdadımız, soy kökümüz olan oğuz tayfalarıdır. Oğuzlar çox qədim tarixə malikdir. Əksər mənbələrin verdiyi məlumata görə, oğuz adı¬na hələ Göy türk dövründə rast gəlinir [9, s.25-36]. F.Zey¬nalov yazır ki, Göy türk imperatorluğu dövründə buraya daxil olan dil qruplarından biri də 9 boydan (tayfadan) ibarət oğuzlar idi. Göy türklərin maddi-mədəniyyət abidələrindən ən böyüyü Yenisey (VI əsr) və Orxon abidələridir (VIII əsr). Oğuz adına ilk dəfə olaraq Yenisey abidələrində təsadüf edilir. " Əvvəllər oğuzlar 6 boydan ibarət olmuş, sonra boy¬ların sayı doqquza çatdırılmışdır" [16, s. 94-95]. M.Kaşğari (XI əsr) məşhur "Divani-lüğət-it türk" əsərində oğuzların Kı¬nık, Kayığ, Bayundur, İva//Yiva, Salğur, Əfşar, Bektili, Büğ¬düz, Bayat, Yazğır, Eymür, Karabolük, Alkabölük, İğdir, Ürə¬gir//yürəgir, Totırka, Ulayıntuluğ, Tökər, Beçenek, Çuval¬dar, Çepni, Çarukluğ adı ilə 22 boydan [10, s. 56], F.Rəşi-dəddin, Yazıçıoğlu Əli və Əbülqazi xan Xivəli, Əbül¬qazi Bahadır xan isə 24 boydan (tayfadan) ibarət olduğunu yazırlar [16, s. 95; 7, s. 35-37]. Araşdırmalar sübut edir ki, ulu oğuzların bu nəsil, qəbilə, tayfa, tirə adları dağlara, qaya¬lara hopub yaşamış və zəmanəmizə qədər gəlib çatmışdır. Elə buna görə də oğuz boy-tayfa adları Naxçıvanın toponimlər sistemində də öz ifadəsini tapır.

Tarixi müqayisəli metod. Xələc toponimi. Naxçıvan ərazisidə bu adda oykonim, oronim və Xələc daşı kimi onomastik vahidlər də mövcuddur. Şərur və Sədərək rayonlarında qeydə alınan Xələc toponimi eyniadlı qədim türk tayfa adı ilə bağlıdır. M.Vəliyev (Baharlı) də Nəcib Asim adlı bir tarixçiyə istinad edərək yazır ki, Xalac tayfası lap qədimlərdən Xorasanda və İraqda yaşayan qədim türk tayfalarından biridir. Bu söz "qal ac" yaxud, "xalac" (xılç, xılc, xalıc) xalqı bu "qal ac" uşağın adından əmələ gəlmişdir. VI yüzillikdə "qal ac"ları romalılar "xalatiye" adlandırırdılar ki, bu ad türk sözü "qılınc"ın tərcüməsidir. Monqolların hücumu zamanı bir çox "qal ac"lar məhv edildi, bir hissəsi isə Azərbaycanda sığınacaq taparaq Göyçay (Xalac, Xalac-Xınıslı), Cavad (Xalac) və Zəngəzur (Kalac və Xalac) qəzalarında məskunlaşdılar (15, s.39-40). Q.Qeybullayevin tədqiqatından görürük ki, XIX əsr və XX əsrin əvvəllərində Xələc tayfası çaparlı, qarahəsənli, yetimlər, səfəralılı, ismayıllı, bəyalı, hacılar, əhmədli və s. kimi tirələrə bölünərək Azərbaycanın müxtəlif ərazilərinə səpələnmişdir (13, s.54). Xalac tayfasının bir qolu da Naxçıvanda məskunlaşaraq Xələc kəndinin əsasını qoymuş və bu kənd adı əsasında Xələc dağ adı yaranmışdır. Bu tayfa adı ilə bağlı yer adları Əfqanıstan, Hindistan, İran ərazilərində də mövcuddur. Q.Qeybullayevin yazdığına görə, qədim türk xalac

tayfasının bir qolunun adı Qarahəsənlidir. Şərur rayonundakı eyniadlı kənd qara ləqəbli Həsən adlı şəxs tərəfindən salınıb. Qarahəsənli və Xələc kəndlərinin eyni istiqamətdə yerləşməsi və Qarahəsənli kəndində Həsənli tayfasının yaşaması da mövcud faktlardandır. Sonda belə nəticəyə gəlirik ki, Xələc dağı tayfa adı ilə bağlı oronimdir. A.Bağırov tədqiqatlarında Xələc toponiminə ilk dəfə M.Kaşğarinin "Divani-lüğət-it-türk" əsərində rast gəlindiyini, həmçinin müəllif Əbülqazi Bahadur xanın yazdıqlarına əsaslanaraq "xalac" sözü Oğuz xanın müəyyən münasibətlə döyüşçülərindən birinə dediyi "kal aç" kəlməsi əsasında yarandığını qeyd etmişdir (4, s.57). Qeyd edilən tədqiqatçılardan da görünür ki bu toponimin yaranmasında oğuz tayfalarının mühüm rolu olmuşdur.

Böyükdüz toponimi. Son dövrlərə qədər Babək rayonunda kənd adı olmuşdur. Hazırda Kəngərli rayonunun tərkibinə daxildir. Adil Bağırov qeyd edir ki, XIX əsr və ondan əvvəlki dövrlərdə, eləcə də 1936-cı illərə aid arxiv materiallarında bu ada rast gəlinmir. Ancaq 1918-1920-ci illəri əks etdirən xəritədə Böyükdüz adı öz əksini tapmışdır[3, s.78]. 1963-1969-cu illərdə Araz su anbarının tikintisi ilə əlaqədar Böyükdüz kəndi öz əvvəlki yerindən indiki əraziyə köçürülmüşdür. İstər elmi ədəbiyyatda, istərsə də xalq ara¬sın¬da Böyükdüz adının mənşəyi ilə bağlı maraqlı fikirlər vardır. Belə ki, xalq arasında kəndin adı daha çox yerləşdiyi ərazinin adı ilə bağlı açıqlanır. Bu fakt bəzi mənbələrdə də öz əksini tapır. Qeyd olunur ki, kənd düz, nisbətən geniş (böyük) əra¬zini əhatə etdiyinə görə belə adlanmışdır [8, s. 98]. Bizcə, bu fikrin istinad mənbəyi yoxdur, çünki Böyükdüz kəndinə ad yerləşdiyi ərazinin relyef quruluşuna görə verilməmişdir.

Araşdırmalar sübut edir ki, Böyükdüz adına "Kitabi Dədə Qorqud" dastanlarının tədqiqi ilə əlaqədar açıqla¬ma¬larda münasibət bildirilir və bu sözün mənşəyi "Qazan bəyin oğlu Uruz bəyin dutsaq olduğu boyu bəyan edər" boyundakı Bəgdüz Əmənin adı ilə əlaqələndirilir [1, s. 91]. Ə.Tanrıver¬di¬yev də dastanda adı çəkilən "Bığı qanlı Bəgdüz Əmən" birləş¬məsini antroponim kimi təqdim edir və Bəgdüz adındakı bəg komponentini bəy (bək), bək titulunun fonetik variantı, düzü isə qədim türk dilində tuz variantında işlənmiş "düz, bərabər, həqiqi, doğru, sədaqətli" mənalarında işləndiyini yazır [14, s. 90].

Adil Bağırov qeyd edir ki, bu müəlliflərdən fərqli olaraq dastanın rus tədqiqatçısı V.M.Jirmunski hələ 1962-ci ildə bəkdüz sözünü tayfa adı kimi vermiş, bu fikir S.Əliyarovun araşdırmasında da öz əksini tapmışdır [3, s.79].

F.Sümər də Oğuz boyları haqqında danışarkən dastan¬dakı "bıyığı qanlı" kimi təsvir edilən Əmən bəyin büğdüzdən olduğunu yazır və bu tayfa adının Türkiyə ərazisindəki topo¬nim¬lərdə öz izini saxladığını qeyd edir. Onun fikrincə, hələ XVI əsrdə Anadoluda büğdüzlərə aid 22 yer adı qeydə alın¬mış¬dır ki, bunların da 19-u oykonimdir. Bu gün həmin yer adla¬rının ancaq üçü qalır [9, s. 334]. Bütün bu deyilənlərdən sonra belə nəticəyə gəlirik ki, Böyükdüz adının mənşəyi oğuz¬la¬rın Bəgdüz tayfa adı əsasında yaranmışdır.

Qaraçuq toponimi. Respublikamızda ən qədim adlardan biridir. Bu kənd Babək rayonu ərazisində Araz çayı boyunca uzanan qə¬dim karvan yolunun kənarında yerləşmişdir. Tarixi bir kənd olan Qa¬raçuğun bina olunması və adının mənşəyi haqqında əli¬miz¬də dəqiq məlumat yoxdur. Bu ada ilk dəfə "Kitabi Dədə Qor¬qud"dastanlarında təsadüf edirik [12, s. 42-43].

Qaraçuq adının mənşəyi dilimizdə mübahisə yaradan ono¬mastik vahidlərdəndir. İnandırıcı olmayan söyləmələrə gö¬rə, kəndin əhalisinin əksəriyyəti daha çox qara çuxa gey¬dik¬ləri üçün buraya Qaraçuxalılar – Qaraçux – Qaraçuq adı ve¬rilib. Digər bir söyləməyə görə isə, kəndin adı yerləşdiyi Qara zığ sahəsinin adından götürülüb. Sözsüz ki, bu fikir də ağ¬labatan deyil. Çünki Qaraçuq adlı toponimlərin yayılma arealı geniş olduğundan bu sözün mənşəyini Qara zığla bağ¬la¬maq əsassızdır.

Adil Bağırov qeyd edir ki, Digər mənbədə isə bura türk dillərində qara-"torpaq" və çox sözlərinin birləşməsindən əmələ gəlib, "çox münbitli tor¬paq" mənasında açıqlanır və kənddə kəngərlilərə məxsus qaraxanbəyli, yurtçu, billici, hacıvar, cığatay, qoman kimi tayfalara məxsus ailələrin yaşadığı qeyd olunur [3, s.81].

Qaraçuq sözü "Kitabi Dədə Qorqud" dastanlarında bir neçə yerdə və dastanın ayrı-ayrı nəşrlərində müxtəlif fonetik va¬riantlarda işlədilir. Oğuzların Salur boyundan olan Qa¬zan xan "Qaraçuğun qaplanı", onun çobanı isə "Qaracıq ço¬ban" epitetləri ilə təqdim olunur [12, s. 42-43].

Qaraçuq adının məna açımı haqqında danışan və S.Əli¬za¬də bu sözün "Kitabi Dədə Qorqud"un mətnində üç mənada: "at adı" (xüsusi isim), "qara camaatın, hamının mindiyi və mi¬nə biləcəyi at",

“yer adı” (toponim) məna¬la¬rın¬da işlə¬n¬di¬yi¬ni və Qarağuc sözünün Qaracığın metateza nəticə¬sin¬də də¬yişmiş variantı kimi təqdim edir [12, s. 225-226].

Ş.Cəmşidov Qaraçuq adının Bərdə şəhərindən cəmi 40-50 kilo¬metr məsafədə yerləşən eyniadlı dağın adı ilə bağlı oldu¬ğunu, bu sözün Qaradağ – Qaraduğ – Qaraçuq şəklində Qara-dağ sözündən törədiyini yazır və ifadənin etimologiyasını dili¬miz¬dəki dağ sözünün dəyişilmiş forması hesab edir [6, s.123,134]. Ş.Cəmşidovdan fərqli olaraq S.Babayev Qara¬çuq toponimini Babək rayonundakı eyniadlı kəndin adı ilə bağlı yarandığını, iki hissədən ibarət (Qara-çuq) olan bu sözün birinci tərəfinin “geniş, böyük”, -çıq şəkilçisinin isə kiçilt¬mə mənalarında işləndiyini yazır [1, s. 62, 68]. A.Bay¬ra¬mov da bu adı Naxçıvan ərazisi ilə bağlı açıqlayaraq Qaraçuq variantına üstünlük verir və sözü etnotoponim kimi təqdim edərək yazır ki, Qaraçuq leksik vahidi salar tayfasından olan bir eli, tiräni və ya Qazan xanın yurdunu bildirməkdədir. Bu söz əvvəlcə köməkçi ad kimi işlənmiş, sonra şəxs və tayfa adına çevrilmiş, daha sonra isə toponimə çevrilmişdir [4, s. 45].

F.Sümər isə Sır Dərya (Ceyhun, İnci) çayının orta yata¬ğın¬dakı Fəraq şəhərini və həmin ərazidəki Karaçuk dağlarını oğuzların vətəni hesab edir. O, M.Kaşğarinin Karaçukun oğuz ölkəsinin adı olduğunu və öz xəritəsində də Karaçuk dağı¬nı oğuz yurdu kimi göstərdiyini yazır, ancaq sözün leksik-se¬man¬tik mənasına toxunmur [9, s. 54-55]. Kırzıoğlu F. Ziya Gökalpın “Türk me¬de¬niyyeti tarihi” (İstanbul, 1925) əsərinə istinad edərək Karacuk / Karacık-ın Di¬yar¬-bəkirdəki Karaca dağ olduğunu yazır və qeyd edir ki, E. Rossi də Ka¬ra çu¬kun Diyarbəkirdə olduğunu təsdiqləyir. Müəllif belə nəti¬cəyə gəlir ki, das¬tanda həm Bayandur xan, həm də Salur Qaza¬nın sülalərinə mənsub olan Ka¬raçuk ilk oğuz yurdu olan Xorasandakı Karaçuk dağının adı ilə bağlıdır [11, s.93].

Adil Bağırov qeyd edir ki, İ.Cəfərov qəzet məqaləsində adın mənşəyinə toxunmuş, Qaraçuq sözünün işıq ucunu oğuzlar haqqında söylənilən məlum əfsanə ilə əlaqələndirir: “Qaraçuqun” uq sonluğu ox sözünü əks etdirir. Əgər “ç” hərfini də nəzərə alsaq aydın olar ki, “üçox” dil vahidinin üç forma daşıyıcısı “çox – çux”Qara¬çuq sözündə qorunub saxlanılmışdır. Biz ü saitini asanlıqla bərpa edə bilərik. Bu halda Qara-üç-ox sözlərinin qovuşma prosesi diqqəti cəlb edir. Yəni Qaraüçox ifadəsi ilk öncə Qaraüçox təkamül mərhələsini yaşamış, sonradan dilimizdə iki saitin yanaşı işlənməsi çətinlik törətdiyindən uçuq sözünün ilk saiti eliziya hadisəsinə mə’ruz qalmışdır» [3, s. 82].

Göründüyü kimi, Qaraçuq adının mənşəyinə müxtəlif isti¬qamətlərdən yanaşılır və toponimin coğrafi məkanı da dəqiq müəyyənləşdirilmir. Bizə belə gəlir ki, bu adı konkret ərazi ilə bağlamaq və ya onun sərhəddini hər hansı bir kənd və dağ çərçivəsində məhdudlaşdırmaq düzgün deyil. Çünki “X əsrdən başlayaraq oğuzların müxtəlif ölkələrə böyük qəbilə halında köç etməsi, onların Volqaboyu, Bolqarıstan, Azərbaycan, Qafqaz, Krım, Orta Asiya, İran və Türkiyədə məskunlaşmaları” [16, s. 97] həmin ərazilərdə Qaraçuq adı¬nın yaranmasına səbəb olur. Odur ki, Qaraçuq sözünü oğuzların yurd yeri, məskəni mənasında açıqlamaq daha inandırıcıdır. Bu fikri sözün leksik-semantik mənası və Qaracuq // Qaracıq dağının o vaxt oğuzların məskəni adlandırmaları da təs¬diq¬ləyir.

Qaraçuq adı qara və çuq tərkib hissələrindən ibarətdir. Burada qara sözü “böyük”, “iri”, “geniş”, “ərazi” məna¬la¬rın¬da, çuq sözü isə qədim türk dillərində çaq sözünün [3, s. 83] fonetik variantı olub “yer”, “məkan”, “yurd” anlamlarında işlənir. Qaraçuq sözü birlikdə “böyük yer”, “iri məkan”, “ge¬niş yer, məkan”, “böyük yurd” anlayışları yaradır və “oğuz¬la¬rın yaşadığı yurd, məkan” mənalarında işlənir. Demək, oğuz¬lar harada yaşayıblarsa, oraya Karaçuk // Qarağuc // Qaracıq // Qaraçoq // Qaraçaq // Qaraçıq // Qaraçuq adlarını veriblər. Bu fikri Qaraçuq variantlı onomastik vahidlərin coğ¬ra¬fi¬ya¬sı¬nın genişliyi də sübut edir. Şübhəsiz ki, Naxçıvan ərazisindəki Qa¬raçuq oykonimi də vaxtilə oğuzların yaşadığı yurd yer¬lə¬rin¬dən biridir.

Yeri gəlmişkən onu da qeyd edək ki, “Kitabi Dədə Qor¬qud” dastanlarında işlədilən “Qaraçuğun qaplanı” epitetini heç də bir kəndlə, kiçik bir ərazi ilə məhdudlaşdırmaq düzgün de¬yil. Çünki “Qaraçuğun qaplanı” birləşməsində Qaraçuq sö¬zü “böyük bir elin”, “böyük bir yurdun”, “Oğuz elinin igidi, as¬lanı” mənalarında dərk olunur. Unutmaq olmaz ki, das¬tan¬da Bayandır xan bütün oğuz elinin, çox böyük bir tayfanın “xanlar xanı”dır. Bayandır xandan sonra hakimiyyətin idarə olun¬masında ikinci şəxs Salur Qazandır. Demək, Bayandır xan hansı ərazinin “xanlar xanı”dırsa, Qazan xan da həmin elin igidi, cəsur ərəni, qaplanıdır [2, s. 59-60].

## NƏTİCƏ

Məqaləmizdə belə bir nəticəyə gəlirik ki, bir çox tayfalar kimi Oğuz tayfalarının da Naxçıvan Muxtar Respublikasının toponimlərinin yaranmasında da xüsusi rolu olmuşdur.

## ƏDƏBİYYAT SİYAHISI

1. Babayev S.Y ( 1999),Naxçıvanda "Kitabi Dədə Qorqud" toponimləri, Bakı: Yeni nəşrlər evi, 284 s.
2. Bağırov A.N ( 2002), Naxçıvan toponimlərinin linqvistik xüsusiyyətləri, Bakı: Elm.
3. Bağırov A.N (2008), Naxçıvan oykonimləri, Bakı: Nurlan, 333 s.
4. Bağırov A. N (2011), Oronimlərin linqvistik xüsusiyyətləri, Bakı: "Elm və təhsil", 219s.
5. Bayramov A.N (1999), Naxçıvanda " Dədə Qorqud" kitabı ilə səsləşən yer –yurd adlarımız/ Filiologiya məsələlərinə dair toplu, Bakı:№3, s 43-47.
6. Cəmşidov Ş.A (1999), "Kitabi- Dədəm Qorqud", Bakı: elm.
7. Ebülqazi Bahadur Han (1995) Türklərin soy kütüyü(Şeçere-i terakime), Ankara.
8. Ensiklopedik lüğət (1999) Azərbaycan toponimləri, , Bakı: Azərbaycan ensiklopediyası.
9. Faruk Sümər (1992), Oğuzlar, Bakı: Yazıcı,
10. Kaşğari.M (1992), Divani lüğat-it türk tercümesi, Cilt I, Çevireni Besim Atalay, Ankara:Türk tarih kurumu basımevi,
11.Kırzıoğlu Fahrettin (2000), Dede-Korkud oğuznameleri, Ankara: AYK,Atatürk Kultur Merkezim Başkanlığı,
12."Kitabi Dədə Qorqud " dastanları (1988), Bakı: Yazıcı,
13. Гейбуллаев Г(1986), Топонимия Азербайджана, Баку: "Элм", 192с.
14. Tanrıverdi Ə.B (1996) "Kitabi- Dədə Qorqud" da şəxs adları Bakı: Elm,
15. Vəliyev (Baharlı) M (1999), Azərbaycan, Bakı: "Azərbaycan", 192s.
16. Zeynalov F.R(1981)Türkologiyanın əsasları, Bakı: Maarif,

Jamila Maharramova

**BABEK DISTRICT OYKONYMS WITH OGHUZ TRİBES**

The article deals with the oykonyms related to the name of the Oghuz tribes in the territory of Nakhchivan. It is known that, One of the tribes living in the lacquer composition of the Nakhchivan Autonomous Republic is our great ancestor, Oghuz tribes, our roots.Oghuzs have a very ancient history.According to the article, mainly Oghuz, Halac, Garacug, Boyukduz and other oykonyms some of which were included in the study. Structural structure, lexical-semantic properties of these constructions located in the territory of Nakhchivan and such studies are reflected here.

**KEY WORDS: Oghuz tribe name, ethnooykonyms, Halac, Garacug, Boyukduz.**

# DİL VƏ GENDER

**NƏRGİZ MƏMMƏDLİ**
Azərbaycan Dillər Universiteti
Doktorantura
NargisMammadli@mail.ru
BAKI, AZƏRBAYCAN

**XÜLASƏ**

Dilin qədim zamanlardan etibarən cəmiyyətin həyatında oynadığı rolun əhəmiyyəti hər kəsə məlumdur. O, cəmiyyət üzvlərini müxtəlif yollarla əlaqələndirir, mədəni reallıqları əks etdirir, həmçinin şəxsi və sosial ideologiyaların formalaşmasında həlledici rol oynayır. Cəmiyyətin məhsulu olan dil fərdlər arasında mühüm körpü rolunu oynayır. Elmi yazılarda dil və gender anlayışlarının kəsişməsi XX əsrin sonlarına təsadüf edir. Bu istiqamətdə gender anlayışı həm sosial münasibətlər, həm də bərabərsizliyin göstəricisi kimi təhlil edilir və bunun başlıca səbəbi kişilər və qadınlar arasında fizioloji fərqlərlə bərabər mövcud olan sosial-mədəni uyğunsuzluqların cəmiyyətin fəaliyyətinin bütün aspektlərini əhatə etməsidir. Bu məqalə dil və gender anlayışları arasındakı əlaqə və gender fərqinin insanların dildən istifadəsinə necə təsir etməsindən bəhs edir.

**AÇAR SÖZLƏR: dil, gender, cəmiyyət.**

## GİRİŞ

Dinamik bir vasitə kimi dəyərləndirilən dil sosial normaların və qarşılıqlı əlaqələrin formalaşmasında mühüm rol oynayır. Dildən istifadə gender kontekstində səmərəli ünsiyyətdə və fikirlərin ifadəsində güclü vasitə kimi dəyərləndirilir. Dil və gender anlayışları arasındakı əlaqəyə nəzər yetirdikdə aydın olur ki, dil sadəcə ictmai normaları əks etdirmir, həm də gender rollarına və gözləntilərinə də təsir edir və gücləndirir. Fərdlər dildən istifadə edərək dil, cəmiyyət və gender dinamikası arasındakı mürəkkəb qarşılıqlı əlaqəni vurğulayır və bununla da ənənəvi gender stereotiplərini davam etdirir və ya onlara qarşı çıxır. Dilin gender normalarının formalaşmasına necə təsir etdiyini anlamaq, dil və gender anlayışları arasındakı əlaqəni açmaq üçün mühüm əhəmiyyət kəsb edir.

Bu mövzu ətrafında tədqiqatlara ehtiyac dil və cəmiyyət arasındakı mürəkkəb əlaqədən irəli gəlir ki, bu münasibətdə dil sosial qarşılıqlı əlaqələrin və mədəni reallıqların formalaşmasında fundamental alət rolunu oynayır. Butler, Lamidi və Apte kimi alimlər dilin sosial qarşılıqlı əlaqədə və cəmiyyət daxilində müxtəlif fuksiyaların yerinə yetirilməsində dəyərli vasitə kimi əhəmiyyətini vurğulamışlar. Tarixi perspektivlər dilin cəmiyyət həyatında mərkəzi rolunu vurğulasa da, gender fərqinin dildən istifadəyə necə təsir etdiyini dərindən araşdırmaq mühüm əhəmiyyət daşıyır. Dilin ənənəvi gender stereotiplərini necə davam etdirdiyini tədqiq etməklə gələcək tədqiqatlar dil, cəmiyyət və gender anlayışları arasındakı qarşılıqlı əlaqəni işıqlandıra bilər.

Tədqiqat işi 1960-cı illərin sonu və 1970-ci illərin əvvəllərində qadın hərəkatının ikinci dalğasının başlaması ilə ortaya çıxan dil və gender anlayışları arasındakı əlaqəni araşdırır. Genderin əsas elementləri kimi ictimai münasibətlərə diqqət yetirərək, dil və gender anlayışlarının müxtəlif aspektlərdən necə təhlil oluna biləcəyini müəyyənləşdirir. Tədqiqat həmçinin gender fərqlərinin dildən istifadə və ünsiyyət zamanı özünü necə göstərdiyini müzakirə edir, sosial gözləntilərin və stereotiplərin fərdlərin davranışına və dil istifadəsinə təsirini vurğulayır.

## TƏDQİQAT METODU

Tədqiqat işində dil və gender arasındakı mürəkkəb qarşılıqlı əlaqəni araşdırmaq üçün linqvistik təhlil, kontekstual təhlil və diskursiv təhlil metodlarından istifadə olunmuşdur.

Qədim dövrlərdən bu günə qədər dil daim güc mənbəyi hesab olunub. Dil ilə cəmiyyət arasında sıx əlaqə mövcuddur. Dil cəmiyyətin mədəni reallıqlarını əks etdirir. Dil dinamik, şəxsi və azad hesab olunur, həmçinin müəyyən edilmiş sərhədlərlə məhdudlaşmır, lakin siyasi, sosial, iqtisadi və şəxsi ideologiyaları dəstəkləmək üçün dil daim bir vasitə kimi istifadə olunub. Dil unikal bir fenomen kimi dəyərləndirirlir, çünki dil fərdidir və onun istifadəsi bir istifadəçidən digərinə kifayət qədər böyük ölçüdə dəyişə bilir. Belə ki, sözlər fərqli insanlar tərəfindən zamanın müxtəlif məqamlarında, müxtəlif

kontekstlərdə fərqli şəkillərdə istifadə olunur. Fərdlər ünsiyyət prosesində sözlərin, qrammatik strukturların və digər linqvistik xüsusiyyətlərin seçimi ilə şüurlu və ya şüursuz şəkildə dildən necə istifadə etmək barədə daim seçimlər edirlər. Dilin istifadəsi ən uyğun şəkildə ünsiyyət qurmağa və fikirlərini ifadə etməyə çalışan dil istifadəçilərinin unikal fərdiliyini təmin edir.

Tarix boyunca görkəmli mütəfəkkirlər dilin cəmiyyətin həyatında oynadığı rolun əhəmiyyətini ifadə edən müxtəlif fikirlər səsləndirmişlər. Məsələn, Aristotel dil və cəmiyyət arasında çox mühüm əlaqə olduğunu və dilin sadəcə kommunikativ məqsədlər üçün istifadə edilmədiyini, həmçinin mədəni və sosial rola malik olduğunu vurğulayır.

Butler fikirləşir ki, dil hər şeydən əvvəl insanların sosial-mədəni və psixoloji kontekstlərdə əsas ünsiyyət vasitəsidir. Lamidi qeyd edir ki, dil insanların istifadə etdiyi çox faydalı bir vasitədir və cəmiyyət həyatında müxtəlif funksiyaları yerinə yetirir. Bu funksiyalar içərisində dilin şəxsiyyətlərarası münasibətlərdə oynadığı rol mühüm əhəmiyyət kəsb edir. Buna görədə o xüsusilə vurğulayır ki, dil və cəmiyyət arasında mövcud olan sıx əlaqə müzakirə zamanı bu anlayışlardan birinə diqqət yetirib, digərinə laqeyd olmağa icazə vermir. Həmçinin dilin cəmiyyətin inteqrasiyası üçün faydalı bir alət olduğunu qeyd edir (Lamidi, 2000).

Apte yazır ki, dil cəmiyyətin məhsuludur (Apte,1985). Stubbs isə öz fikirlərini belə şərh edir: "Dil cəmiyyətdə sosial qarşılıqlı əlaqənin ən yaxşı vasitəsidir" (Stubbs, 1983). Adeyanju qeyd edir ki, dil insanların istifadə etdiyi elə bir alətdir ki, insan fəaliyyətini əhatə edən bütün sahələr və həmçinin insanların cəmiyyətdəki funksiyalarını yerinə yetirmələri üçün əvəzsiz rola malikdir (Adeyanju, 2011).

Dil və gender anlayışları akademik yazılarda 1960-cı illərin sonu və 1970-ci illərin əvvəllərində, qadın hərəkatının ikinci dalğasının başlamasından əvvəl birgə istifadə edilməyə başlamışdır. Ehtimal olunur ki, dil və gender anlayışları haqqında mövcud olan fikirlər, bu anlayışlar öyrənilməyə layiq görülməzdən əsrlər əvvəl mövcud olmuşdur. Dil və gender anlayışları fərqli istiqamətlərdən təhlil oluna bilər. İlk növbədə gender sosial münasibətlərin əsas elementi hesab olunur. Həmçinin gender anlayışı sinif, irq və cinsi fərqlər kimi bərabərsizliyi ifadə edən anlayışların təhlili zamanı tez-tez istifadə olunur. Gender anlayışı barəsində mülahizələrə XX əsrin 70 ci illərindən etibarən qərb ədəbiyyatında, xüsusilə ingilisdilli ədəbiyyatda rast gəlinir. Əksər hallarda gender tədqiqatlarını cəmiyyətdə cinslərin qarşılıqlı fəaliyyətinin fəlsəfi təhlili kimi dəyərləndirilər. Belə olduqda qadınlar və kişilər arasında olan fərqlər iki istiqamətə ayrılır. İlkin olaraq qadınlar və kişilər arasında mövcud olan fizioloji fərqlər, ikinci olaraq isə cəmiyyətin fəaliyyətinin bütün sahələrini əhatə edən sosio-mədəni fərqlər başa düşülür.

Gender fərqinin insanların dildən istifadəsinə təsir göstərməsi mövzusu ətrafında çox sayda müzakirələr və tədqiqatlar yerinə yetirilib və hələdə yerinə yetirilməkdədir. Hər şeydən əvvəl qeyd etmək lazımdır ki, insanların dildən necə istifadə etməsinə müxtəlif amillər təsir göstərə bilər. Onların dildən istifadə tərzi mənsub olduqları milliyət, gündəlik fəaliyyətləri, xarakterləri və sahib olduqları statusla əlaqədar ola bilər. Cameron xüsusilə vurğulayır ki, dil ilə gender arasında mürəkkəb bir əlaqə mövcuddur (Cameron, 2000).

Holmes bu mövzu ilə bağlı fikirlərini belə şərh edir:

1. Qadınlar kişilərlə müqayisədə söhbətin emosional tərəfinə daha çox diqqət yetirirlər.
2. Qadınlar eyni sosial qrupdan olan kişilərə nisbətən eyni sosial kontekstlərdə daha çox standart formalardan istifadə edirlər.
3. Qadınlar danışıq prosesində daha çox dəstəkləyici mövqedən çıxış edirlər, lakin kişilər isə xüsusilə rəsmi kontekstlərdə öz güclərini və statuslarını nümayiş etdirəcək, qoruyub saxlayacaq və artıracaq şəkildə çıxışlar etməyə meyllidirlər (Holmes, Meyerhoff, 1999).

Wodak yazır ki, qadınlara qarşı qeyri bərabər, ədalətsiz rəftara haqq qazandırmaq üçün istifadə olunan bütün xüsusiyyətlər feministlər tərəfindən tənqid edilir (Wodak, 1997). Giddens isə düşünür ki , gender kişilər və qadınlar arasındakı psixoloji, sosial, və mədəni fərqlərlə maraqlanır (Giddens, 1989).

"Language and Women's Place" adlı kitab sosiolinqvistika və gender tədqiqatları sahəsindəki işi ilə tanınan dilçi Robin Lakoff tərəfindən yazılmışdır. Lakoff bu kitabda dilin qadınlara qarşı sosial münasibətləri necə əks etdirdiyini və bərabərsizliyi davam etdirmək üçün dilin necə istifadə edildiyini müzakirə edir. Bu kitab gender normalarının möhkəmləndirilməsində dilin rolu haqqında geniş müzakirələrə səbəb olmuşdur. Onun qəbul etdiyi perspektivə əsasən qadınların danışıq üslubu kişilərlə müqayisədə aşağı qiymətləndirilmişdir. Belə bir əskikliyin mövcudluğunu qəbul edən bir çox

tədqiqatçı dilin təkmilləşdirilməsi üzərində işlər aparmışdır. Lakoff tərəfindən irəli sürülən nəzəriyyə və siyasət tənqidlərə məruz qalmış olsa da, bu kitab dilçilikdə feminizmin təməl daşı hesab olunur. Bütün tənqidlərə baxmayaraq qeyd olunmalıdır ki, Lakoff tərəfindən həyata keçirilən tədqiqat bu istiqamətdə hələ geniş miqyasda tədqiqatların aparılmadığı bir dövrə təsadüf edir və bu məsələ ilə bağlı Lakoff özü qeyd edir ki, bu kitab dildəki gender fərqlərinin qəti izahı deyil, bu kitab bu istiqamətdə irəliyə doğru aparan bir tədqiqat işidir. Lakoff yazır ki, bütün dilərdə qadınlara və kişilərə xas olan ünsiyyət yolları, səslər, söz seçimi, cümlə strukturları, qrammatik, sintaktik və praqmatik xüsusiyyətlər, bunların hamısı dili əhatə edir. Dildən istifadə zamanı ortaya çıxan gender fərqləri öz əsasını cəmiyyətin üzvlərinin formalaşdırdığı yaxşı qadın və kişi stereotiplərindən alır, yəni sosial gözləntilər və stereotipik inanclar gender fərqlərinə əsasən insanların davranışlarına və dildən istifadəsinə təsir göstərə bilir (Lakoff 1975).

Lakoff öz modelini inkişaf etdirərkən, başqa tədqiqatçılar da dildəki gender fərqlərini müxtəlif şəkillərdə izah etməyə çalışırdılar və belə tədqiqatların ən məşhur nümunələrindən biri Zimmerman və West tərəfindən həyata keçirilmişdir. 1975-ci ildə Zimmerman və West Kaliforniya universitetində orta təbəqədən olan qafqazlı yeniyetmələrin söhbətlərini qeyd etdilər. Aparılan müşahidələrdə müəyyən olundu ki, müzakirələr zamanı söhbət 46 dəfə kişilər və sadəcə 2 dəfə qadınlar tərəfindən kəsilib. Tədqiqatın kiçik olmasına baxmayaraq tədqiqatçılar belə bir nəticəyə gəliblər ki, kişilərin danışıq prosesində daha çox fasilələrə səbəb olması, söhbət əsnasında onların dominantlığına işarə edir və tədqiqatçılar bununla da kişilərin cəmiyyətdə daha güclü mövqeə malik olması ideyasını dəstəkləyirlər. (Zimmerman, West, 1975).

Zimmerman və West tərəfindən həyata keçirilən tədqiqatlardan ilhamlanan Beattie, öz tədqiqatını həyata keçirmək üçün 10 saat ərzində təhsillə əlaqədar aparılan müzakirələri müşahidə edir və tədqiqatın sonunda əldə olunan nəticə Zimmerman və West tərəfindən əldə olunan nəticələrlə eynilik təşkil edir, belə ki danışıq əsnasında kişilər tərəfindən 557 müdaxilənin olduğu məlum olur. Tədqiqatçıların əldə etdiyi nəticələr eyni olsa belə, Beattie onların fikirləri ilə razılaşmır və qeyd edir ki, kişilər tərəfindən edilən müdaxilələrin çoxluğu gender məsələsi ilə yox statusla əlaqədardır.

Bu istiqamətdə aparılan tədqiqatlardan biri də Grief tərəfindən həyata keçirilmişdir. O məktəbəqədər yaşlı uşaqlar və valideynlərinin münasibətləri ilə bağlı apardığı tədqiqatda müşahidə edir ki, analarla müqayisədə atalar uşaqlarının sözünü kəsməyə və yaxud onlarla eyni vaxtda danışmağa daha çox meyllidir. Həmçinin aparılan müşahidələrdə məlum olub ki, valideynlər övladları ilə apardıqları söhbətlər əsnasında qızlarının sözlərini, oğullarına nisbətən daha çox kəsirlər və bütün bunlar qızları passiv ünsiyyət rollarını mənimsəməyə vadar edir.

Pamela Fishman da Lakoff tərəfindən irəli sürülən bəzi fərziyyələr üzərində tədqiqatlar aparmışdır və onun əsas tədqiqat obyektlərindən biri sual cümlələri olmuşdur. O amerikalı evli cütlüklərdən evdəki söhbətlərini qeyd etməyi xahiş edir və cütlüklərin təqdim etdiyi, ümumilikdə 52 saatlıq səsyazmalarında sual cümlələrini təhlil edir. Fishman Lakoffun bu mövzu ilə bağlı gəldiyi qənaətlə razılaşır, və sual cümlələrinin kişilərlə müqayisədə qadınlar tərəfindən daha çox istifadə olunduğunu vurğulayır, lakin nəticəni bir qədər fərqli şəkildə şərh edir. Fishman iddia edir ki, qadınlar həyat yoldaşları ilə söhbətə başlamaq və ya söhbəti davam etdirmək üçün ardıcıl olaraq suallar verirlər və suallardan danışıq zamanı üstünlük əldə etmək üçün istifadə edirlər. De Francisco da evli cütlüklərdən alınan müsahibələr əsasında apardığı tədqiqatlardan eyni nəticələri əldə etmişdir.

Dale Spender isə Lakoffun yanaşmasını tənqid etmişdir. O bildirir ki, dil bir tərəfdən mücərrəd bir sistem kimi öyrənilərkən, digər tərəfdən verilmiş kontekstdə öyrənilir. Spender qaydaların insanlar tərəfindən yaradıldığına və dilin reallığı ifadə etmək üçün istifadə edildiyinə inanırdı. O fikirləşirdiki, səssizlik sadəcə olaraq qadınlar üçün arzulanan vəziyyətdir (Spender, 1980).

Aydındır ki, gender və dil arasındakı əlaqə müxtəlif formalarada şərh olunur, lakin qeyd etmək olar ki, bir çox hallarda gender dilin istifadəsini və qadın dilinin müəyyən xüsusiyyətlərinin müəyyən bir cəmiyyətdə gender münasibətləri ilə necə əlaqələndirildiyini xarakterizə edir. Həmçinin məlumdur ki, qadınların və kişilərin çıxışları zamanı müşahidə olunan fərqlər fərqli şəkillərdə ifadə olunur. Əksərən qadınların dilinin onların mühafizəkarlığını, hörmətini, mərhəmətini, emosional ifadəsini, başqalarına qarşı həssalığını və həmrəyliyini əks etdirdiyi halda, kişilərin dilinin onların sərtliyini, müstəqilliyini, rəqabət qabiliyyətini və səriştəsini əks etdirdiyi deyilir.

**NƏTİCƏ**

Tarix boyu dil mədəni reallıqları və sosial normaları əks etdirən güclü bir vasitə kimi xidmət etmişdir. Dil ümumi olduğu qədərdə fərdidir və dilin fərdliyinin əsasında onun müxtəlif kontekstlərdə fərdi istifadə yolu ilə fərqli mənaları ifadə etməsi və cəmiyyət üzvlərini birləşdirən körpü rolunu oynaması dayanır. Dil və gender anlayışlarının birgə istifadəsi dilin sosial münasibətlər və mədəni ideologiyalara necə təsir etdiyini və onlardan necə təsirləndiyini müəyyənləşdirən elmi diskursun mövzusu olmuşdur. Aristotel, Butler, Lamidi, Apte və Stubbs kimi alimlər dilin sosial qarşılıqlı əlaqələrdə vasitəçiliyini, şəxsi və sosial kimliklərin formalaşmasında mühüm rolunu vurğulamışlar. Bu mövzu ətrafında aparılan tədqiqatlarda dildən istifadə zamanı gender fərqlərinin müəyyənləşdirilməsi, gender normalarına əsaslanan sosial gözləntilərin və stereotiplərin fərdlərin ünsiyyət formalarına necə təsir etməsi diqqət mərkəzində dayanır.

Müxtəlif tədqiqatların nəticələri göstərir ki, gender anlayışı yalnız ünsiyyətin məzmununa deyil, həmçinin onun strukturuna da təsir göstərir. Qadınların nitqi əksərən hörmət, empatiya və əməkdaşlıq kimi keyfiyyətlərlə seçildiyi halda, kişilərin nitqi iddialılıq, müstəqillik və rəqabətçilik ilə diqqət çəkir. Nəticə etibarilə qeyd etmək lazımdır ki, dil və gender anlayışlarının tədqiqi linqvistik təcrübələr və sosial normalar arasında mürəkkəb qarşılıqlı əlaqəni ortaya qoyur və bu sahədə davamlı tədqiqatların və tənqidi təhlillərin aparılmasının zəruriliyini vurğulayır.

**ƏDƏBİYYAT SİYAHISI**

1. Butler, Christopher, S. (2003). Functional Approaches to Language, The Dynamics of Language Use, John Benjamins Publishing Company, Vol.140, 3-18.

2. Cameron, D. (2000). Good to Talk? Living and Working in a Communication Culture, London: Sage 213 p.

3. Holmes, J & Meyerhoff, M (1999). The Community of Practice: Theories and Methodologies in Language and Gender Research. Language and Society, 28, 173-183.

4. Lakoff, R. (1975). Language and Woman's Place: Text and Commentaries. New York: Harper and Row Publishers, 45-80.

5. Zimmerman, Don , West, C. (1975). Sex Roles, Interruptions and Silences in Conversation, Mass: Newbury House 105-129.

Nargis Mammadli

**SUMMARY**

Language and Gender

Language has always played a significant role in society throughout history. It serves as a means to connect individuals, reflecting cultural realities and shaping personal and social ideologies. What makes language unique is its individual usage, where words acquire distinct meanings within specific contexts. As a product of society, language acts as a vital bridge between individuals. The intersection of language and gender concepts has gained prominence in academic discourse, particularly towards the end of the 20th century. In this regard, gender is examined as an indicator of social relations and inequality, as the socio-cultural disparities that accompany the physiological differences between men and women permeate all aspects of societal activities. This article explores the correlation between language and gender concepts, as well as how gender differences influence individuals' language usage.

**KEY WORDS: language, gender, society**

# İNTONASİYANIN ÜNSİYYƏTDƏ ROLU

**AİDƏ NƏSİRLİ**
Bakı Slavyan Universiteti
Magistratura
nesirliaide@gmail.com
BAKI, AZƏRBAYCAN

**XÜLASƏ**

Tədqiqat işində intonasiyanın ünsiyyətdə rolu açıqlanır, onun yerinə yetirdiyi funksiyalar, eləcə də, hazırkı dövrdə danışıq zamanı intonasiyadan istifadə və bu istifadə zamanı qarşıya çıxan bir sıra problemlər də qeyd olunur. İntonasiya fonetikanın mühüm komponentlərindən biri kimi həm yazılı, həm də şifahi nitqdə istifadə edilir. Yazılı nitqdə intonasiyadan istifadə durğu işarələri vasitəsilə həyata keçirilir. İntonasiyanın ünsiyyətdə tətbiqində səs tonu ilə yanaşı, vurğunun da böyük rolu vardır. Ana dili ingilis dili olmayan əksər şəxslər qeyd edilən dildə ünsiyyət qurarkən bu dilin intonasiyasından istifadədə, həmin dildə olan hər hansı bir materialı dinləyərkən isə onu anlamaqda çətinlik çəkirlər. Bu hal hər dilin özünəməxsus xüsusiyyətlərinin olması ilə əlaqədardır. Hətta bəzi ingilis dilini öyrənən insanlar öz dillərinin fonetik xüsusiyyətlərini adı çəkilən dilə tətbiq etməyə çalışırlar ki, bu da yolverilməzdir. Ölkəmizdə də belə hala rast gəlinir. Bu, xüsusilə, bir sıra şagirdlərin buraxılış imtahanında ingilis dilində olan dinləmə materialını asanlıqla başa düşə bilməmələrində öz əksini tapır.

**AÇAR SÖZLƏR: intonasiya, kommunikasiya, nitq.**
**KEY WORDS: intonation, communication, speech.**

**SUMMARY**

In the research work, the role of intonation in communication is explained, the functions it performs, as well as the use of intonation during conversation in the current period and a number of problems encountered during this use are also noted. Intonation is used in both written and oral speech as one of the important components of phonetics. In written speech, intonation is used through punctuation marks. In the application of intonation in communication, in addition to tone of voice, emphasis also plays a big role. Most people whose mother tongue is not English have difficulty using the intonation of that language when communicating in the mentioned language, and when listening to any material in that language, it is difficult to understand it. This is due to the fact that each language has its own characteristics. Even some English learners try to apply the phonetic features of their own language to the said language, which is unacceptable. This is also the case in our country. This is especially reflected in the inability of some students to easily understand the listening material in English in the final exam.

Tədqiqat işinin məqsədi ünsiyyət zamanı intonasiyanın rolunu müəyyən etmək, ifadə olunan fikirdən asılı olaraq intonasiyanın fərqli cəhətlərinin ortaya çıxarılması, bu fərqli cəhətlərin ortaya çıxarılmasında yaranan problemlər və onların qarşısının alınması üçün bir sıra üsullardan istifadənin göstərilməsidir.

Tədqiqat işinin vəzifələri kimi aşağıdakıları qeyd etmək olar:

- Kommunikasiyada intonasiyanın əhəmiyyətini araşdırmaq;
- İntonasiyanın hansı mənalar ifadə edə biləcəyini müəyyənləşdirmək;
- Nitqdə intonasiyanın daşıdığı müxtəlif funksiyaları üzə çıxarmaq.

Aydındır ki, ötürülən fikrin dinləyici tərəfindən düzgün başa düşülməsində intonasiyanın xeyli əhəmiyyəti vardır. Lakin bəzən orta və tam orta təhsil müəssisələrində ingilis dilinin tədrisi zamanı adı çəkilən dilin yalnız intonasiya xüsusiyyətlərinə deyil, ümumiyyətlə, fonetikasına xüsusi diqqət yetirilmir. Bunun nəticəsini Dövlət İmtahan Mərkəzi tərəfindən təşkil edilən və dinləmə tapşırıqları ehtiva edən bir sıra imtahanlarda rast gəlmək olar. Bir sıra şagirdlər ingilis dili üzrə dinləmə tapşırıqlarının həllində xeyli çətinlik çəkirlər. Bu isə məktəblərdə müəllimlərin müəyyən dilə aid sırf qrammatika və lüğət üzərində daha çox fokuslanmaları və onların mənimsənilməsi üçün daha çox əmək sərf etmələri ilə bağlıdır. Belə olan halda şagirdlər ingilis dilində olan danışığa çox məruz qalmırlar. Nəticədə, onlar bu dildə olan şifahi nitqin intonasiyasını, eləcə də, vurğu və səslərin fərqli

səslənmə yollarını, bir sözlə, spesifik xüsusiyyətlərini yetəri qədər mənimsəyə bilmir və dinləmə zamanı çətinliklə qarşılaşırlar ki, hazırda ölkəmizdə aktual olan belə çətinliyin qarşısının alınması üçün də əsas həll şagirdlərin ingilis dilinin qrammatikası ilə sıx məşğul olduqları kimi dinləmə materialları üzərində də kifayət qədər işləmələridir.

Tədqiqat işinin praktik əhəmiyyətini xüsusilə vurğulamaq olar. Çünki intonasiyadan şifahi və yazılı nitqdə, gündəlik həyatda istifadə olunur. Şifahi nitqdə intonasiyanın göstəricisi qalxan və enən səs tonları hesab edilir. Yazılı nitqdə isə səs tonunu durğu işarələri əvəz edir. Cümlənin ortasında istifadə edilən vergül, cümlənin sonuna əlavə edilən nöqtə, sual, nida kimi durğu işarələri vasitəsilə informasiyanın hansı tonda və nə məqsədlə deyilməsi aydın olur.

Tədqiqat işinin obyekti dedikdə intonasiya nəzərdə tutulur. Tədqiqat işinin predmeti isə intonasiyanın ünsiyyətdəki rolu və sahib olduğu əsas funksiyalar hesab edilir.

Tədqiqatın elmi-nəzəri əsası olaraq onu qeyd etmək olar ki, intonasiya, eləcə də, onun rolu müəyyən tarixi dövr ərzində bir sıra müəlliflər tərəfindən fərqli formalarda araşdırılmışdır. Tədqiqat prosesində tətbiq edilən əsas metodlar isə təsviri metod və eksperimental metoddur.

Tədqiqat işinin strukturu xülasə, açar sözlər, giriş, əsas hissə, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

Ünsiyyət, yaxud kommunikasiya insan fəaliyyətinin əsas hissələrindən biri hesab olunur. Kommunikasiya, əsasən, iki şəxs arasında baş verir: danışan tərəf və dinləyən tərəf. Bu tərəfləri "informasiyanı ötürən" və "informasiyanı qəbul edən" də adlandırmaq olar. Ünsiyyət prosesi zamanı bir yerdən, insandan və ya qrupdan digərinə ideyaların, məlumatların, baxışların, faktların ötürülməsi baş verir. Effektiv ünsiyyət məlumatı aydınlaşdırır, vaxt itkisini azaldır, inam yaratmağa, münasibətlər qurmağa kömək edir. Ünsiyyət zamanı istifadə olunan jestlər, səs tonu, təbəssüm, gülüş, üzüntü və s. kimi mimikalar, çiyin, əl və qol hərəkətləri, yaxınlaşma və uzaqlaşma sözlərin özü qədər vacib hesab edilir. Əksinə, intonasiya çalarından məhrum olan nitq, monotonluq, süstlük, həddindən artıq sürətlə və ya yavaş danışıq, diksiyanın pozulması və s. dinləyicini yorur, bəzən hətta əsəbiləşdirir (Abdullayev, 2014).

Ünsiyyətdə intonasiyanın əvəzolunmaz rolu vardır. İntonasiya danışarkən səsin ucalığı və tonu dəyişdikdə yaranır. Qalxan intonasiya nitq zamanı dinləyicidə veriləcək informasiya üçün həvəs yaratmaq məqsədilə istifadə edilir. Əksinə, enən intonasiya isə ifadə olunan fikrin artıq başa çatdığını göstərmək üçün tətbiq olunur.

İntonasiya müxtəlif mənalar – təəccüb, sevinc, zövq və s. ifadə etməklə yanaşı, qrammatik funksiya da daşıya bilər.

İngilis dilində danışan şəxslər intonasiyadan müxtəlif mənaları ifadə etmək üçün istifadə edirlər. Onlar aşağıdakılardır:

1. Qrammatik məna, məsələn, müxtəlif suallar və ya şərhləri ifadə etmək;
2. Ötürülən informasiyanın vəziyyəti, məsələn, onun əsas və ya tabe, bitmiş və ya bitməmiş olması;
3. Danışanın fikrə münasibəti, məsələn, əminlik və ya qeyri-əminlik, şübhə və s. bildirməsi;
4. Hisslərin ifadəsi, məsələn, darıxdırıcı, məyus, əmin, xoşbəxt olmaq;
5. Danışan və dinləyən arasındakı münasibət, yəni danışanın dinləyiciyə nə qədər yaxın və ya məsafəli olması.

İntonasiya, ilk növbədə, səs ucalığının dəyişməsi məsələsidir. İngilis dili kimi bir sıra dillərdə müxtəlif mənaları ifadə etmək üçün tez-tez vurğu və ritmdən istifadə olunur. Onu da qeyd etmək lazımdır ki, bu cür dillərdə intonasiya cümlə və ya cümlə növlərini bir-birindən fərqləndirmək üçün tətbiq edilir. Misal üçün, Azərbaycan dilində "Dünənki konfransda onlar da iştirak etdilər" cümləsi enən tonda tələffüz edilərsə, bu, sadəcə, nəqli formada deyilmiş bir cümlə olar. Əksinə, qeyd edilən cümlənin qalxan tonda tələffüz edilməsi onun sual mənasında işləndiyini göstərər. Bu halı ingilis dilində də müşahidə etmək mümkündür. Ümumiyyətlə, ingilis dilində intonasiyanı belə təsvir etmək olar:

Məsələn: It is beautiful cümləsi:

Enən ton (a falling tone) ilə deyildikdə informasiya verilir və danışan verdiyi informasiyadan əmindir;

Qalxan ton (a rising tone) ilə ifadə olunduqda sual verilə bilər, həmçinin, danışanın əmin olmadığı və ya fikrini tamamlamadığı da ifadə oluna bilər;

Enən-qalxan ton (a fall-rise tone) danışan özünün ifadə etdiyi informasiya ilə bağlı şübhəsinin mövcudluğunu göstərir, eləcə də, bu tondan istifadə artıq deyilmiş olan və ya deyiləcək fikrə istinadı bildirir;

Qalxan-enən tondan (a rise-fall tone) istifadə isə mənanın vurğulanmasını nəzərdə tutur, həmçinin, kontekstdən asılı olaraq təəccüb, xoşbəxtlik və ya həvəs də ifadə edə bilər. Qalxan-enən ton başqası tərəfindən irəli sürülmüş fikrə zidd olaraq hər hansı bir ideyanı da irəli sürdükdə tətbiq edilir.

Bundan əlavə, ingilis dilində neytral intonasiya (neutral intonation) da mövcuddur ki, bu da danışan şəxs heç bir emosiya ifadə etmək istəmədikdə nitqdə tətbiq edilir.

İntonasiyanın düzgün tətbiq edilməməsi dinləyicidə və ya dinləyicilərdə çaşqınlıq yarada, hətta qıcıqlandıra bilər. Kontekstə uyğun tətbiq olunmayan intonasiyaya nümunə kimi əksər cümlələrin sonunda qalxan tondan istifadə olunması göstərilə bilər. Əslində, qalxan ton gündəlik və adi danışıqda daha çox istifadə olunur. Lakin buna baxmayaraq, bu cür tonun həddindən çox tətbiq olunması yolverilməzdir. Çünki səs tonunun müəyyən bir zamanda enməməsi dinləyicini bir növ asılı vəziyyətdə saxlayır və o, nitqin bitməsini gözləyir. Bu hal dinləyicidə onun razılığı və ya rəyinin gözlənilməsi təəssüratını da yarada bilər.

Bəzən prezentasiyaların təqdimi zamanı da qalxan səs tonundan çox istifadə olunur. Bu isə aşağıdakı halları göstərə bilər:

- Təqdimatın müəyyən bir hissəsinin tamamlanmadığını. Belə hal dinləyicidə çaşqınlığın yaranmasına səbəb ola bilər. Çünki dinləyiciyə təqdim edilən hər məlumat aydın olmalıdır ki, onlar təqdimatda qeyd edilən bütün informasiyanı tam şəkildə başa düşə bilsin;
- Təqdim olunan hər hansı bir fikir haqqında əminliyin olmamasını. Belə vəziyyət dinləyicilərə daha əmin şəkildə çatdırılmalı olan fikrin ifadə olunmasına maneə törədə bilər.

İngilis dilində ən çox istifadə olunan səs tonu enən tondur (the falling tone). Bu cür ton, həmçinin, neytral da hesab olunur və danışanın sadəcə məlumat ötürdüyünü göstərir. Enən ton təsdiq, əmr, nida ifadə edən cümlələrdə istifadə olunur. Bu zaman qeyd edilən səs tonu müəyyənlik, cümlənin bitməsini, danışanın ifadə etdiyi fikirdə əminliyin olmasını göstərir. Sual cümlələrində də enən tonun tətbiq olunması mümkündür. Bu isə yalnız "wh" ilə başlayan suallara aiddir.

İntonasiyanın komponentləri dedikdə bunlar nəzərdə tutulur: melodiya, temp, tembr və cümlə vurğusu.

Hər bir dildə nitq prosesi zamanı melodiyadan istifadə edilir, bu, səsin normal, qalxan və enən tonları vasitəsilə həyata keçirilir.

Temp nitq və nitq prosesi zamanı olan fasilələri nəzərdə tutur. Ünsiyyət zamanı kontekstdən, emosional amillərdən, dildən və dialektdən asılı olaraq tempin dəyişilməsi müşahidə oluna bilir.

İntonasiyanın komponentlərindən biri olan tembr danışan şəxsin duyğularını göstərir.

Cümlə vurğusu, adından da məlum olduğu kimi, cümlə ilə əlaqədardır, yəni hər hansı bir cümlədə mənadan asılı olaraq bir və ya daha çox sözün daha qüvvətli tələffüz olunmasıdır.

Vurğu və intonasiya fərqli anlayışlar olsa da, bir-birilə sıx əlaqəlidirlər. İngilis dilində intonasiya ilə bərabər vurğu da böyük əhəmiyyətə sahibdir. Çünki adı çəkilən hər iki element ingilis dilində səlis danışmaq üçün əsas amillərdən hesab edilir.

İntonasiya və vurğu ünsiyyət prosesi zamanı ötürülən müəyyən məna, münasibət və ya emosiyanı gücləndirir. Danışan qeyd edilən hər iki elementdən istifadə etməklə nitqində müəyyən hissənin və ya hissələrin daha vacib olduğunu, eləcə də, diqqət yetirməyə dəyər olduğunu göstərə bilər. Bu zaman danışan şəxs cümlədə müəyyən sözü və ya hecanı digərlərindən daha yüksək səslə tələffüz edir.

Vurğulu heca sözün digər hecalara nisbətən daha güclü tələffüz olunan, vurğusuz heca isə daha zəif tələffüz edilən hissəsidir.

Məlum olduğu kimi, vurğu həm söz daxilində müəyyən hecalarda, həm də cümlə daxilində müəyyən sözlərdə istifadə edilir. İngilis dilində cümlə daxilində bəzi sözlər daha güclü tələffüz olunur. Belə vurğulu sözlər cümlədə bir növ açar rolunu oynayır və ifadə olunan fikrin daha dəqiq başa düşülməsinə kömək edir.

Fransız, italyan kimi digər dillərdə hər bir heca bərabər əhəmiyyətə sahibdir. Belə dillərdə vurğu mövcud olsa da, hər bir hecanın öz uzunluğu var. İngilis dilində vurğulu hecalar daha yüksək tonda, vurğusuz hecalar isə daha aşağı tonda tələffüz edilir. Buna görə də bəzən bəzi vurğusuz hecalar nitq prosesi zamanı, demək olar ki, hətta eşidilmir.

İntonasiyanın ünsiyyətdə rolunu vurğulayarkən onun bir sıra funksiyalarının mövcud olduğunu da qeyd etmək lazımdır. Bu funksiyalar aşağıdakılardır:

Qrammatik və ya sintaktik funksiya – bu funksiyanın həyata keçirilməsi zamanı uzun cümlələr intonasiya qruplarına bölünür. Cümlələrin intonasiya qruplarına bölünməsi həmin cümlələrin mənasından, qrammatik strukturundan, eləcə də, nitqin üslubundan asılı olur. Bu o deməkdir ki, bu halda intonasiya cümlədəki sözlər arasında olan sintaktik əlaqələri göstərir.

İntonasiyanın qrammatik funksiyası qrammatik cəhətdən qeyri-müəyyən strukturların daha aydın şəkildə başa düşülməsinə də kömək edir, məsələn, "sarı güllər və yarpaqlar" söz birləşməsini intonasiyadan asılı olaraq iki cür başa düşmək mümkündür. Belə ki, əgər "sarı güllər" birləşməsindən sonra fasilə olarsa, bu, güllərin sarı, yarpaqların isə başqa rəngdə olmasını göstərəcək. Əksinə, qeyd edilən söz birləşməsinin tələffüzü zamanı heç bir fasilədən istifadə olunmazsa, həm güllərin, həm də yarpaqların sarı rəngdə olduğu məlum olar;

Münasibət funksiyası – danışanın mövzuya və kommunikativ funksiyaya münasibətini, eləcə də, qəzəb və ya sevinc, ciddilik və ya kinayə və s. kimi emosiyalarını göstərir. Daha yüksək səs tonu danışanın mövzu ilə bağlı marağını və həvəsini göstərir. Daha alçaq səs tonu isə onun yorğunluğunu və ya mövzunun sıxıcı olmasını ifadə edir. Məsələn, "He is eager to have rabbit – Where do you intend to keep the `animal?" (Zeynalov, 2007). Bu nümunədə mövzunun sual verən tərəf üçün maraqlı olduğu görünür ki, bu da istifadə olunan yüksək səs tonu vasitəsilə aydın olur;

Aksentual funksiya – bu zaman nitqin melodiyası və cümlə vurğusu intonasiyada ən vacib komponentlər hesab edilir. Bununla belə, onlar arasında hər zaman qarşılıqlı əlaqə mövcud olur. Cümlə vurğusu nitq melodiyasının bir növ bələdçisi olaraq çıxış edir. Bunların sayəsində də cümləyə xas olan mənalar ifadə oluna bilir. İntonasiyanın aksentual funksiyasının olduğu qeyd edildikdə tonik vurğunun (yəni sözdə daha qabarıq və uca tələffüz olunan hecaya tətbiq olunan vurğunun) ifadədə yeri və paylaşılması nəzərdə tutulur. Fokuslama funksiyası da adlandırılan bu funksiya ingilis dilinin intonasiyasında ən vacib funksiya hesab edilir;

Kommunikativ funksiya – intonasiya cümlənin kommunikativ növlərini, yəni onun xəbər, əmr, sual və ya nida olduğunu göstərir. Buna uyğun olaraq məqsəd və intonasiyaya görə cümlənin dörd növü ayırd edilir: əmr (imperative), nəqli (declarative), sual (interrogative) və nida (exclamatory) cümlələri.

Diskurs funksiyası (birləşdirici funksiya) – bu funksiya yazılı mətnin cümlə və abzaslara bölünməsini yerinə yetirir. Bu funksiya bizə ifadə etdiyimiz fikrin sonuna çatıb-çatmadığımızı göstərməyə imkan verir. Bu funksiyanın həyata keçirilməsi zamanı intonasiya vasitəsilə informasiyanın müəyyən hissələri vurğulanır, eləcə də, nitq prosesi zamanı mövzular arasında sərhədlər qeyd olunur. Nitq prosesində intonasiya hansı məlumatın yeni olduğunu, hansının isə artıq qeyd edildiyini müəyyən etməyə kömək edir. Məsələn: – Does she like cars? – She likes cars. Birinci verilmiş nümunədə "cars" sözü yeni informasiyadır və tonik vurğu qəbul edib. İlk cümləyə cavab olaraq qeyd edilən ikinci cümlədə isə "likes" sözü yeni məlumat olduğu üçün vurğu qəbul edir;

Psixoloji funksiya – nitq intonasiya vasitəsilə bir sıra vahidlərə bölünür ki, bunları da daha asan qavramaq, yadda saxlamaq, həmçinin, yerinə yetirmək mümkün olur. Məsələn, bir çox insan iki, üç və ya dörd sözdən ibarət olan sətri, yaxud cümləni heç bir çətinlik olmadan yadda saxlaya bilər, lakin sözlərin sayının on, hətta daha çox olması isə onların yadda saxlanılmasına maneə törədə bilir. Belə olan halda sözlər müəyyən kiçik qruplara bölünür. Bu isə yenə intonasiyanın köməyi ilə həyata keçirilir.

Dilçilik ilə bağlı olan bir sıra mənbələrdə bəzən "prosodiya" termini "intonasiya" termininin əvəzinə işlədilir. Prosodiya nitqin ahəngini və ritmini, həmçinin, bu elementlərin mənaya necə kömək etdiyini öyrənir. Bu termin əvvəllər musiqi ilə müşayiət olunan mahnı mənasını verən qədim yunan sözündən götürülmüşdür. Latın və yunan ədəbi tənqidçiləri prosodiyanı qrammatikanın bir hissəsi hesab edirdilər.

Fonetik səviyyədə prosodiya səsin yüksəkliyi (əsas tezlik), ucalıq (akustik intensivlik) və ritm (heca və fonemin tələffüz müddəti) ilə xarakterizə edilir. Prosodiya ilə bağlı aparılan fonetik tədqiqatlar çox vaxt bu xüsusiyyətlərin öyrənilməsinə fokuslanır.

Prosodiya müxtəlif dilçilik məktəblərinin nümayəndələri tərəfindən fərqli perspektivlərdən araşdırılmışdır və bunun nəticəsidir ki, hazırda prosodiyaya müxtəlif yanaşmalar mövcuddur.

İngilis dilinin intonasiya qaydalarını mənimsəmək ana dili fərqli olan insanların əksəriyyəti üçün çox çətin olur. Həmçinin, məktəblərdə müəllimlər də ingilis dilinin intonasiyasını şagirdlərə öyrətməkdə çox vaxt çətinlik çəkirlər və ya ümumiyyətlə, bu fəaliyyətdən uzaq dururlar. Lakin intonasiya ilə işləmək daha maraqlı və şagirdlər üçün də daha əyləncəli ola bilər. İntonasiyanın tədrisi digər dil sahələrinin də şagirdlər tərəfindən daha maraqla öyrənilməsinə səbəb ola bilər.

İngilis dilinin intonasiyasının öyrədilməsi zamanı bu dili öyrənənlərin ana dili ingilis dili olan insanlara qulaq asmaları, onların danışıq tərzlərinə və intonasiyadan necə istifadə etmələrinə diqqət yetirmələri lazımdır. Qarşıya həqiqi məqsədin qoyulması, daha çox diqqət və öyrənənlərin özgüvənli olması adı çəkilən dilin intonasiyasını öyrənməkdə əsas amillərdir.

Sonda onu qeyd etmək lazımdır ki, ana dili ingilis dili olmayan şəxslər üçün bu dilin intonasiyasını, eləcə də, vurğu və melodiyasını öyrənmək çətin və əziyyətli iş olur. Amma ünsiyyətin düzgün qurulması üçün intonasiya çox vacibdir. Kommunikasiya prosesi zamanı intonasiyanın daşıdığı funksiyanın dinləyiciyə düzgün ötürülməsində danışan şəxsin rolu böyükdür. Çünki ideyanın düzgün şərh edilməməsi dinləyicidə çaşqınlıq yarada bilər.

**ƏDƏBİYYAT SİYAHISI**

1. Farman Zeynalov. (2007). Practical English Phonetics. Book I, 136-139.
2. Nadir Abdullayev. (2014). Nitq mədəniyyətinin əsasları, 61-75.
3. V. A. Vassilyev. (1970). English Phonetics, 279-283.
4. S. M. Babayev, M. G. Garayeva. (1999). English Phonetics, 116-131.
5. Həsrət Həsənov. (2004). Müasir Azərbaycan dilinin fonetikası, 137-141.

# AKADEMİK AĞAMUSA AXUNDOVUN AZƏRBAYCAN DİLİNİN FONEM-FONOLOJİ SƏVİYYƏSİNİN TƏDQİQİNƏ DAİR

**MƏHƏRRƏMZADƏ ŞƏBNƏM VAHİD**
Bakı Slavyan Universiteti
Magistratura,Dilçilik
meherremzadesebnem@gmail.com
BAKI, AZƏRBAYCAN

**XÜLASƏ**

Akademik Ağamusa Axundov uzun illər zəngin elmi fəaliyyəti ilə elm aləminə böyük töhfələr verib. Məqalədə görkəmli dilçi alim,akademik Ağamusa Axundovun elmi yaradıcılığın-da yer alan fonemlər sisteminin tədqiqi probleminə toxunulmuşdur. Dilçi alim ondan əvvəl fonoloji yanaşmalara tənqidi münasibət bildirmiş, özünün qabaqcıl elmi fikirlərini irəli sürmüş, hər bir səsin fonoloji vəziyyətini müəyyən etmişdir. Dilçi alim müəyyən dövrlərdə mübahisə obyektinə çevrilmiş fonem məsələlərinə dair fundamental fikirlər söyləyir. 1964-cü ildə dilçi alim Ağamusa Axundovun müdafiə etdiyi "Azərbaycan dilinin fonem sistemi" doktorluq dissertasiyası işi təkcə ölkəmizdə deyil, onun hüdudlarından kənarda, eləcə də türkoloji dilçilik üçün böyük hadisə hesab olunur. Əsər qrammatika elmində fonetikanın nəzəri əsaslarını təşkil edir. Bu əsərə qədər Ağamusa Axundov həm tarixi, həm də müasir fonetika sahəsində ardıcıl elmi araşdırmalar aparmış, sait və samitlər fonoloji təhlil edilmiş, ümumiləşdirilmişdir. Əsərdə fizioloji ziddiyyətlər və fərqləndirici əlamətlər ilk dəfə olaraq Azərbaycan dili materialları əsasında tədqiq edilmişdir. Bütün bu məsələlər məqalədə daha təfərrüatlı şəkildə işıqlandırılmışdır..

**AÇAR SÖZLƏR: fonem, fonetika, dilçilik ,sait, samit**

**SUMMARY**

Academician Agamusa Akhundov made great contributions to the world of science with his rich scientific activity for many years. In the article, the problem of the study of the phoneme system, which is included in the scientific creativity of the outstanding linguist, academician Agamusa Akhundov, is touched upon. Before that, the linguist criticized the phonological approaches, put forward his advanced scientific ideas, and determined the phonological status of each sound. The linguist gives fundamental views on phoneme issues, which have become the object of controversy in certain periods. In 1964, the doctoral thesis "Phoneme system of Azerbaijani language" defended by linguist Agamusa Akhundov is considered a great event not only in our country, but also beyond its borders, as well as for Turkological linguistics. The work constitutes the theoretical foundations of phonetics in the science of grammar. Prior to this work, Agamusa Akhundov conducted consistent scientific research in the field of both historical and modern phonetics, vowels and consonants were phonologically analyzed and summarized. Physiological contradictions and distinguishing features were studied in the work for the first time on the basis of Azerbaijani language materials. All these issues are covered in more detail in the article

**KEY WORDS: phoneme, phonetics, linguistics, vowel, consonant**

Azərbaycan dilinin fonetikasından danışarkən Ə.Dəmirçizadədən sonra Ağamusa Axundov xatırlanır. O, müasir fonoloji yanaşmalara tənqidi münasibət bildirmiş, elmi mülahizələrini irəli sürmüş, hər bir səsin fonoloji vəziyyətini müəyyənləşdirmişdir. 1960-cı illərdə Azərbaycan dilinin fonetikası və fonologiya sahələri digər sahələrə nisbətən daha çox inkişaf etmişdir və məhz dünya dilçiliyində fonologiya aparıcı mövqe tutmuşdur.Azərbaycanda fonoloji məktəbin əsası 1964-cü ildə A.Axundov müdafiə etdiyi doktorluq dissertasiyası ilə durur. "Azərbaycan dilinin fonem sistemi (fizioloji, akustik, statistik, fonoloji tədqiqat təcrübəsi)" bu tədqiqat işi təkcə Azərbaycanda deyil, eləcə də türkoloji dilçilik üçün də böyük hadisə hesab olunur. Əsər 1973-cü ildə monoqrafiya kimi nəşr edilmişdir. Monoqrafiyada Azərbaycan dilinin fonetik və fonematik səs dəyişiklikləri araşdırılmış, sait və samitlər fonoloji təhlil edilmiş, fonetik və fonoloji qanunauyğunluqlar ümumiləşdirilmişdir. Əsərdə Azərbaycan dili materialları əsasında ilk dəfə olaraq fizioloji ziddiyyətlərin prinsipləri və fərqləndirici xüsusiyyətləri təqdim olunur.

Fonem problemi ilə məşğul olan dilçilərin, demək olar ki, hamısı belə bir qənaətə gəlmişlər ki, heç də bütün dünya dilləri üçün ümumi olan fonemlər yoxdur. Hər bir fonem müəyyən bir sistemin üzvü hesab olunur. Fonem probleminin tədqiqi isə tarixi görkəmli rus dilçisi İ.A.Boduen de Kurtenedən başlayır. Dilçi alim fonemi ilk dəfə etimoloji-morfoloji bir hadisə kimi izah etmişdir. Fonem məsələsinə keçməmişdən əvvəl fonemin nə olduğunu bilmək lazımdır. Fonem tarixən əmələ gəlmiş ən kiçik dil vahidi hesab olunur. B.Xəlilov fonem haqqında belə qeyd edir ki, "dil üçün əhəmiyyəti olan danışıq səsləri sözlərdə məna fərqləri yaradan səslərdir. Dil üçün əhəmiyyəti olan belə səslərə fonem deyilir". [6,26] Dilçilikdə fonemin dil sisteminin vahidi kimi müəyyən edilməsi ilk növbədə rus dilçilərinin adı ilə, onun dil vahidi kimi konkretləşdirilməsi və dil obyekti kimi inkişafı da ilk növbədə rus dilçilərinin geniş tədqiqatları ilə bağlıdır.

Fonem tədqiqatı ilə məşğul olan bütün dilçilər tərəfindən dünya dilləri üçün ümumi olan fonem yoxdur, hər bir fonem müəyyən sistemin üzvüdür və bu sistemin daxilində mövcud olan ideyaları dəstəkləyirdilər. A.Axundovun fikrincə, fars dilində "ə" səsi ilə Azərbaycan dilində "ə" saiti arasında ciddi fərq yoxdur. Onları sözlərdə istifadə etdikdə səsləri bir-birindən fərqləndirən xüsusiyyətlərə rast gəlmirik. Müxtəlif dillərdə görünən səslər fizioloji və akustik cəhətdən bir-birindən fərqli ola bilər. Azərbaycan dilində "c" fonemi rus dilində iki müxtəlif danışıq səsi ilə verilir: "дж". Azərbaycan dili üçün bir fonem üçün əmələ gətirirsə, rus dilində o, iki fonemin müəyyənləşməsinə xidmət edir. [1,34] Ağamusa Axundovun qeyd etdiklərindən belə çıxır ki, müxtəlif dillərdə fonemlərin fiziki substratları arasında iki növ əlaqə mövcuddur:

1. Müxtəlif dillərdəki fonemlərin fiziki substratları eyni və yaxud oxşardır;
2. Müxtəlif dillərdəki fonemlərin fiziki substratları fərqli və yaxud qeyri-oxşardır. [1,35]

Belə bir nəticəyə gəlmək olar ki, bir-birinə zidd olan bu iki vəziyyət dünya dillərində özünü geniş surətdə göstərir. Ancaq müxtəlif dillərdə eyni olan fonemlər də mövcuddur. Misal üçün, rus, ingilis, fars və s. dillərdəki "m" eyni fonemi eynilik təşkil edir.

Ağamusa Axundov dillərin fonemlərini müəyyənləşdirərkən türk dillərində saitlərin güclü mövqeyi məsələsinə toxunmuşdur. Ağamusa Axundov Azərbaycan dilində sait və samitlərin güclü mövqeyi hansı mövqe hesab edilməlidir sualına cavab tapmağa çalışıb. Onun fikrincə, türk dillərinin saitləri üçün güclü mövqe adətən vurğu altında sonuncu açıq heca hesab olunur. Görünür, müəllif həmin güclü mövqeyi müəyyənləşdirərkən sait fonemləri deyil, həmin fonemlərin fiziki xüsusiyyətlərini, yəni danışıq səslərini nəzərdə tutur. O qeyd edib ki, fonemlər hər bir dildə iki müxtəlif qrupa bölünür: saitlər və samitlər. Ağamusa Axundov da söz kökünü şəkilçidən daha güclü mövqe kimi qəbul etmişdir. Məlum olduğu kimi, ahəng qanunu sırf Azərbaycan sözlərində tam şəkildə təzahür edir. O, sait fonemlər üçün güclü mövqe söz kökünün ilk hecasını hesab edir və bildirir ki, söz kökündə iştirak edən saitlər kökün ilk hecasından asılı olur və bir çox fərqləndirici əlamətlərə görə məhz söz kökünün ilk saitinin xassələrini qəbul edir. Ağamusa Axundov daha sonra yazır və qeyd edir ki, Azərbaycan dilində saitlərin bəzi fərqləndirici xüsusiyyətləri işlənmədiyi üçün başqa üsuldan istifadə etmək lazımdır. Belə ki, bir-birindən yalnız bir saitlə fərqlənən sözlərə rast gəlinmirsə, saitlərin dəyişdirilməsi ilə sözün mənasının qorunduğunu nəzərə almaq lazımdır. Əgər sait dəyişikliyi ilə söz əvvəlki mənasını tamamilə itirirsə, dəyişmiş saitlər müstəqil fonemlər, söz öz mənasını qoruyub saxlayırsa, həmin saitlər eyni fonemin variantları hesab edilir.[1,46] Sonralar belə bir söz üsulundan istifadə edilir ki, qonşu saitlər eyni hecaya daxil olarsa, bir fonem, müxtəlif hecalara daxil olarsa, müxtəlif fonemlər sayılır. Nəticə etibarı ilə Azərbaycan saitlərinin müəyyən edilməsində bu üsullardan əsas götürülür.

Sait fonemlərində olduğu kimi, samit fonemlərin müəyyən edilməsi üsullarından danışarkən, ilk növbədə, onların güclü mövqeyini aydınlaşdırmaq və tapmaq lazımdır. A.Axundov Azərbaycan dilində samitlər üçün güclü mövqe hansıdır sualına cavab olaraq bildirmişdir ki, samitlər üçün güclü mövqe saitdən əvvəlki mövqedir. Onun fikrincə, şəkilçili samit foneminin halı zəif, kök samitinin halı isə güclüdür. Sait və samit fonemləri müəyyənləşdirmək üsulları fonetika ilə bağlı tədqiqatlarda A.Axundovun mövqeyi əsasında daha da dərinləşmişdir. [6, 26-31]

Aydın məsələdir ki, belə bir halda Azərbaycan dilinin fonem tərkibinin hərtərəfli elmi təhlilini vermək, habelə elmi materiallarla əsaslandırmaq üçün bir sıra məsələləri nəzərdən keçirmək lazımdır. Məsələn, belə bir sual fonoloji cəhətdən tamamilə ədalətli hesab edilə bilər: kolxoz və kino sözlərindəki “k” və “k” səsləri hansı samit fonemə daxildir? K ”k” foneminə mi daxildir, yoxsa k “k” foneminə? [1,49] Burdan belə qənaətə gəlmək olar ki, bu suala asanlıqla cavab vermək mümkün deyildir. Bu məsələ də Ağamusa Axundov Azərbaycan dilinin fonemlərini müəyyənləşdirərkən aşağıdakı spesifik üsulları nəzərdə tutmuşdur:

1. Bəzi fonemlərin müəyyənləşdirilməsində onların etimoloji mənsubiyyəti nəzərdə tutulmur;
2. Bəzi fonemlərin müəyyənləşdirilməsi zamanı onların aralıq xarakterli fonematik əvəzlənmələri etiraf edilmir. [1,50]

Başqa dillərdə olduğu kimi, Azərbaycan dilində də fonemlər üç qrupa bölünür: saitlər (vokalizm), sonorlar və samitlər (konsonantizm). Fonemləri iki yerə ayırmaq olar: sonantlar (musiqi tona malik olan danışıq səsləri) və konsonantlar (küylü danışıq səsləri). A.Axundov onların hər ikisini ayrı-ayrılıqda doğru hesab edirdi. Amma o, birinciyə daha çox üstünlük vermişdir. Çünki ikincidə sırf akustik aspekt nəzərə alınır, birincidə isə həm akustik, həm də fizioloji amillərə əsaslanılır.

Azərbaycan dili saitləri fonoloji cəhətdən öz həllini hələlik tapmadığına görə bu məsələdə iki hal özünü göstərir:

1.Müasir Azərbaycan dilində uzun sait fonemlər məsələsi

2. Müasir Azərbaycan dilində diftonqlar məsələsi.

Birinci məsələ üzrə müxtəlif fikirlər söylənmişdir. Belə ki, bəziləri düşünür ki, Azərbaycan dilində uzun saitlər yoxdur. Bu fikri dilçiliyimizdə Ə.Dəmirçizadə irəli sürmüşdür. Müəllif bu barədə yazmışdır ki “Kəmiyyət, daha doğrusu davamlılıq nöqteyi-nəzərindən monoftonq saitlər uzun, adi və qısa olmaqla üç növə ayrılır. Məsələn, çətin sözünün antonimi olan asan sözündəki “a” ilə asmaq məsdərindən düzələn asan feli sifətindəki “a” ilə kəmiyyətcə fərq var. Birinci sözdəki “a” uzun, ikinci sözdə isə adi halda tələffüz olunur. [4,38] Azərbaycan dilində uzun saitlərin alınma olması ideyası da irəli sürülüb. Onlara cavab olaraq A.Axundov bildirmişdir ki, fonemin müəyyən edilməsində mənşə məsələsi əhəmiyyət kəsb etmir, olsa belə, onlar Azərbaycan dilinin fonetik quruluşunun məhsuludur. Daha sonra Ağamusa Axundov türk dillərində uzun saitlərin uzunluq əlamətinə görə iki növünü göstərmişdir: 1) ilkin uzanma 2) sonrakı uzanma. İlkin uzanmaya nisbətən sonrakı uzanma daha geniş

yayılmışdır. Akademik M.Şirəliyev ilkin və sonrakı uzanmadan bəhs edərkən yazır: “İlkin uzanma daha qədim dövrlərə aiddir. Bunun əmələ gəlmə səbəbləri dilin sonrakı inkişaf tarixi ilə izah edilə bilmir. İlkin uzanmaya türkmən və yakut dillərində daha çox təsadüf edilir. Azərbaycan dilinin dialekt və şivələrində isə ilkin uzanma çox zərif halda bəzi sözlərdə özünü göstərir. Sonrakı uzanma türk dillərində daha geniş yayılmışdır. Sonrakı uzanma müəyyən səssizin düşməsi nəticəsində əmələ gəlir.” [7,25] A.Axundov isə Azərbaycan dilində bütün saitlərin sonrakı uzanma nəticəsində meydana gəlməsi fikrini irəli sürmüşdür.

Saitlərlə bağlı mübahisəli məsələlərdən biri də diftonqlar məsələsidir. Dilçilərin diftonqlarla bağlı fikirləri müxtəlifdir. Ə.Dəmirçizadə diftonqları fonem kimi qəbul etmir və onların danışıq səsi kimi ədəbi dilimizdə olmadığını göstərir. A.Hüseynov da Ə.Dəmirçizadənin fikri ilə razılaşdığını göstərmişdir. Dilçiliyimizdə "oy", "ay", "oy", "uy", "iy", "yy", "uv", "av", "ov", "ov", "ev","ev","iv" diftonq kimi sayılmır. Diftonqlar məsələsi hələ də həll olunmamış qalır. A.Axundovun fikrincə, ümumiyyətlə, diftonq dedikdə iki saitin bir heca daxilində tələffüzü kimi başa düşülə bilər. Azərbaycan dilində iki diftonq, “öy” və “oy” diftonqları var və onlar fonematik xüsusiyyətlərə malikdir.

Azərbaycan dili saitlərinin statistik təhlili bir sıra ümumi və xüsusi qanunauyğunluqların meydana çıxarılmasına imkan verir:

1. Azərbaycan dili saitləri üçün tipik mövqe söz ortasıdır. Dilimizdə bu mövqedə işlənməyən bir dənə də olsun sait yoxdur. Söz əvvəlində saitlərdən ikisi, söz axırında isə beşi (bütün uzun saitlər) işlənmir. Ümumiyyətlə söz sonu dilimizdəki “e”, “o”, saitləri üçün tipik deyildir. Söz sonunda əsasən, altı saitə (i, ü, ə, ı, u, a) rast gəlinir.

2. Azərbaycan dilində fonetik və morfoloji mövqedən asılı olmayaraq ən çox işlənən saitlər dodaqlanmayan, açıq “ə” və “a” saitləridir.

3. Azərbaycan dilində ən çox işlənən uzun saitlər “i:” və “a:” saitlərdir.

4. Azərbaycan dilində işlənmə tezliyinə görə saitləri bu şəkildə sıralamaq olar: “a”, “ə”, “i”, “ı”, “u”, “o”, “ü”, “e”, “ö”, “a:”, “u:”, “ə:”, “e:”,“ö” [1,107]

Müasir Azərbaycan dili saitlərini müxtəlif prinsiplər əsasında müəyyən başlıqlar təyin edib təhlil etmək olar. Dilin şaquli vəziyyətinə, dilin üfüqi vəziyyətinə, dodaqların iştirakına görə və s. başlıqlar müəyyənləşdirmək olar. Azərbaycan dilinin saitləri üçün əsas fərqləndirici əlamət dilin üfüqi vəziyyəti prinsipinə əsaslandığı üçün A.Axundov saitlərin fizioloji-akustik təhlilini də bu prinsiplərə əsasən aparmışdır.

Samitləri saitlərdən fərqləndirməklə sərhədlərinin müəyyən edilməsi məsələsi hələ də öz həllini tapmamış olaraq qalımışdır. Saitlərdən fərqli olaraq dilimizdə samitlər heca yaratmadığından A.Axundov sait və samitləri heca baxımından fərqləndirmişdir. Ahəng qanunu saitlərdə olduğu kimi samitlərdə də özünü göstərir, lakin saitlərdə olduğu kimi güclü şəkildə özünü göstərmir. Ona görə də o, ahəng qanununa görə saitləri samitlərdən ayırmırdı. Heca formasını əmələ gətirmək üçün saitləri daha əsaslı əlamət hesab edirdi.

Dilimizdəki samit fonemlərin tərkibi də bir qədər mübahisəlidir. B. Xəlilov 41, Ə.Qurbanov 33, T.Hidayətzadə 24, Ə.Dəmirçizadə 25, M.Hüseynzadə 23, F.Kazımov 39 samit fonem göstərmişdir. A.Axundov Ə.Dəmirçizadənin fikrini düzgün hesab etmişdir. Lakin [x`] samitini göstərmişdir ki, bu samit müstəqil fonem deyil. O, samitlərin fizioloji-akustik təhlilini müzakirə etmiş və fəal danışıq üzvünün iştirakına görə (dodaq samitləri, dil samitləri, udlaq samitlər) vermişdir. Alt dodağın aktiv üzv kimi iştirakına görə beş dodaq samiti (n, b, m, f, v) göstərmişdir. Dilçiliyimizdəki samitlərin çoxu dil samitlərinə aiddir. A.Axundov dili samitlərini dörd hissəyə bölündüyünü göstərmişdir: dilönü, dilortası, dilarxası, öndilarxası. A.Axundov dildə samitlərin əmələ gəlmə üsuluna görə bu şəkildə təqdim etmişdir: “t”, “d”, “n”, “k”, “g”, “k”, “q”, “n/”, “s”, “z”, “sh”, “j”, “y”, “x”, “g”, “ch”, “c”, “l”, “r”.

Müasir Azərbaycan dilində səsli, yəni cingiltili samitlərin karlıq hadisəsi həm sözün əvvəlində, həm də sonunda geniş yayılmışdır. Bu halda cingiltili samitlərin kar olması onların cingiltilik xüsusiyyətlərini tamamilə itirməsi demək deyil. Həmin samitlər karlaşma hadisəsinə uyğunlaşdıqda tələffüzün yalnız müəyyən hissəsində kar olurlar. Əslində, onlar yarımcingiltili və yaxud yarımkar olurlar. Bununla bağlı A.Axundov yazmışdır: “Bütün bunlara əsasən eyni zamanda qeyd etmək olar ki, “cingiltili samitlərin dilimizdə karlaşması” ifadəsi söz əvvəli mövqeyi nəzərə alınarsa, tarixi cəhətdən şərtidir. Əslində dilimizdə cingiltili samitlərin karlaşmasından daha çox, söz əvvəlində bəzi kar

samitlərin hələ tamamilə cingiltiləşməməsi hadisəsi vardır. Bu nöqteyi-nəzər tarixi cəhətdən doğrudur. Dilimizin müasir vəziyyəti nöqteyi-nəzərindən yanaşdıqda isə, praktik cəhətdən asanlıq və ümumilik cəhətdən həmin hadisəni ümumiyyətlə karlaşma kimi götürmək məqsədə daha uyğundur." [1, 201]

Azərbaycan dilinin samit fonemlərinin fizioloji-akustik cəhətdən təhlili bəzi ümumi əlamətlərin meydana çıxmasına imkan verir. A.Axundov bu əlamətləri belə ümumiləşdirmişdir:

1. Yalnız fəal və qeyri-fəal danışıq üzvlərinin iştirakına görə fərqlənən samitlər: f-s-x-h
2. Yalnız əmələ gəlmə üsuluna görə fərqlənən samitlər: p-f, g-y, b-v
3. Yalnız səs tellərinin iştirakına görə fərqlənən samitlər: p-b, s-z, c-ç, g-k, k-q
4. Yalnız yumşaq damağın vəziyyətinə görə fərqlənən samitlər: m-b, n-q və s. [1,203]

Burdan da göründüyü kimi dilimizdə ən çox samiti əhatə edən fizioloji prinsiplər səs tellərinin iştirakına görə olan prinsiplərdir.

Dilimizdə incə və qalın samitlər fonetik məna daşımadığından bütün samitlər incəlik və qalınlıq baxımından saitlər tərəfindən mənimsənilir. Bəzən bir fonem başqa fonemlə əvəz olunur. Bir dildə fonemlərin dəyişdirilməsi iki fərqli xüsusiyyətə malikdir. Fonemlər bir-birini əvəz etdikdə müəyyən məna dəyişikliyi əmələ gətirirsə, belə əvəzlənmələrə fonematik əvəzlənmə, heç bir məna fərqinə səbəb olmursa, onlara fonetik əvəzlənmə deyilir. [1,290] A.Axundovun fikrincə, Azərbaycan dilində fonetik əvəzləmə axtarışı nəzəri cəhətdən doğru deyil. O bildirir ki, müasir Azərbaycan dilinin müasir vəziyyəti baxımından bu faktlar əsl fonetik əvəzlənmə kimi hesab edilə bilməz. Lakin tarixi nöqteyi-nəzərdən nəzər saldıqda biz onları kök və şəkilçilərə bölmürük, əksinə etimoloji mənasını müəyyən etmək mümkündür. Dilimizdə başqa amillərə görə fonetik əvəzlənmələr qismən də olsa özünü büruzə verir. Bu, bizim dilimizin başqa dillərlə, daha aydın desək, tarixi əlaqələridir və fonetik əvəzləmələrlə zəngin olan dillərlə bağlıdır. Müasir Azərbaycan dili fonemlərinin əvəzlənmələri bizə bəzi nəticələr çıxarmağa imkan verir:

1. Bütün dillərdə olduğu kimi, müasir Azərbaycan dilində də nitq axını zamanı baş verən amillərin təsiri ilə sait və samit fonemləri müəyyən xüsusiyyətlərini itirərək, başqa fonem və variantlarla əvəz olunur.

2. Bu dildəki fonetik faktlar iki növ əvəzlənmənin, yəni fonetik və fonematik əvəzləmələrin olduğunu göstərir. Lakin fonematik əvəzlənmə iltisaqi dillərindən sayılan Azərbaycan dili üçün xarakterik deyil.

3. Müasir Azərbaycan dili samit fonemlərinin əvəzlənmələri əsasən dörd əlamətə əsalanır ki, onlar da öz əhatə dairəsinin dərəcəsinə görə: 1) əmələ gəlmə üsuluna görə, 2) səs tellərinin iştirakına görə, 3) yumşaq damağın vəziyyətinə görə, 4) əmələ gəlmə yerinə görə

Bütün bu deyilənlərdən belə nəticə çıxır ki, Ağamusa Axundov Azərbaycan dilçilik elmindəki sözlərin sait və samit səslərin mövqeyini və inkişafla bağlı taleyini müəyyən etmişdir. Milli ədəbi dilin reallıqlarına əsaslanaraq Azərbaycan dilinin fonemlər sistemini yaratmaq dilçilik tariximizdə əhəmiyyətli bir şəkildə yer tutur. Dilçiliyimizin qarşısında duran mühüm vəzifələrdən biri də fonetikamızın öyrənilməsində aparılan işləri ümumiləşdirmək və yekunlaşdırmaq idi. Akademik Ağamusa Axundov bu vəzifənin öhdəsindən lazımi qaydada gəlmiş, fonetika ilə bağlı tədqiqat işlərini eksperiment yolu ilə ümumiləşdirmişdir. Ümumiyyətlə Ağamusa Axundovun elmi-nəzəri irsi ölkəmizdə və hüdudlardan kənar elmi idrakın yüksək miqyasını bütün reallıqlarla əks etdirən qiymətli örnəklərdəndir.

**ƏDƏBİYYAT SİYAHISI**

1. Axundov A. Azərbaycan dilinin fonemlər sistemi. Bakı: Maarif nəşriyyatı,1973,303 s.
2. Axundov A. Dil və mədəniyyət. Bakı: Yazıçı, 1992, 192 s.
3. Axundov A. Azərbaycan dilindəki ərəb sözlərinin fonetik xüsusiyyətləri haqqında // S.M.Kirov adına ADU-nun əsərləri. 1963, №№, s. 55-63
4. Dəmirçizadə.Ə.Müasir Azərbaycan dili I hissə. Fonetik, orfoepiya, orfoqrafiya. Bakı, "Şərq-Qərb" 2007, 256 s.
5. Azərbaycan dilçiliyi müntəxəbatı. 3 cilddə, III c., Bakı: AMEA, 2013, 522 s. Filologiya məsələləri, № 6, 2019, 154 s.
6. Xəlilov B. Müasir Azərbaycan dili: fonetika, yazı, əlifba, qrafika, orfoqrafiya, orfoepiya. Bakı: Bakı Çap Evi nəşriyyatı, 2013, 312 s.
7. Şirəliyev M. Azərbaycan dialektologiyasının əsasları. Bakı: Şərq-Qərb, 2008, 416 s.
8. https://www.anl.az/down/meqale/525/2017/aprel/538570.htm

# QIPÇAQ QRUPU TÜRK DİLLƏRİNDƏ MÜŞAHİDƏ OLUNAN AFFİKSLƏR HAQQINDA

**OMAROVA FAİDƏ**
AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu
Filfay-6786@mail.ru
Azərbaycan, Bakı

**XÜLASƏ**

Məqalədə qıpçaq qrupu türk dillərindən olan qazax, qırğız, başqırd, qaraqalpaq, noqay və kumık dillərinin affiksləri haqqında məlumat verilmişdir. Türkoloqların həmin dillərin affiksləri haqqında fikirləri qeyd olunmuşdur. Qırğız dilində affikslər aqqlütinativ xüsusiyyət daşıyırlar. Onlar söz kökünə, yaxud da şəkilçilərə qoşulur, lakin öz nisbi müstəqilliklərini qoruya bilirlər. Qaraqalpaq dilində sözyaradıclığı prosesi ən çox morfoloji yolla baş verir. Başqırd dilində, digər türk dillərində olduğu kimi əhəmiyyətinə, yerinə və funksiyalarına görə morfemlər iki növə bölünür: a) kök morfemlər və ya köklər; b) affiks morfemlər və ya affikslər. Qıpçaq qrupu türk dillərindən olan kumik dilində sözyaradıcı affikslər məhsuldar, qeyri-məhsuldar və az məhsuldar affikslərə bölünür. Türk dillərində, o cümlədən qıpçaq qrupu türk dillərində qrammatik forma anlayışı ənənəvi qrammatik forma anlayışından bir qədər fərqlidir. Bu fərq aqqlütinasiya anlayışı ilə bağlıdır. Yəni sözün yaradılmasının spesifik morfoloji yolları ilə əlaqəlidir. Buna görə də müasir türkologiyada affikslərin etimologiyası və mənşəyi haqqında paralel şəkildə inkişaf etmiş iki baxış mövcuddur. Birinci fikrə görə, affikslər aqqlütinasiya qanununa əsasən əmələ gəlmişdir. Belə ki, affikslər zaman keçdikcə sözlərin leksik mənasını, vurğusunu itirərək formalaşmışdır. İkinci nöqteyi-nəzərə əsasən, bir neçə təkkomponentli və ya tək fonemli affikslərin birləşməsi nəticəsində mürəkkəb formalar əmələ gəlmişdir. Beləliklə, qeyd etdiyimiz məsələlər, türkoloqların fikirləri bir daha onu deməyə əsas verir ki, həm türk dillərindəki affikslərin, həm də digər affikslərin mənşəyi hələ tam dəqiqləşməmiş və bəzi suallar hələ də qalmaqdadır.

**AÇAR SÖZLƏR: qıpçaq qrupu türk dilləri, affikslər, mənşə, funksiyalar.**

**RESUME**

The article provides information about the affixes of the Kazakh, Kyrgyz, Bashkir, Karakalpak, Nogai and Kumyk languages from the Turkic group of Kipchak languages. The opinions of Turkologists about the affixes of those languages have been mentioned. Affixes in the Kyrgyz language have agglutinative properties. They are attached to the word root or suffixes, but they can maintain their relative independence. The process of word creation in the Karakalpak language occurs most morphologically. In the Bashkir language, as in other Turkic languages, morphemes are divided into two types according to their importance, place and functions: a) root morphemes or roots; b) affix morphemes or affixes. Word-forming affixes in the Kumyk language, which belongs to the Turkic group of Kipchak languages, are divided into productive, unproductive and less productive affixes. In Turkic languages, including Kipchak Turkic languages, the concept of grammatical form is slightly different from the traditional concept of grammatical form. This difference is related to the concept of agglutination. That is, it is related to specific morphological ways of word formation. Therefore, there are two parallel developed views on the etymology and origin of affixes in modern Turkology. According to the first opinion, affixes were formed according to the law of agglutination. So, over time, affixes were formed by losing the lexical meaning and emphasis of words. According to the second point of view, complex forms were formed as a result of the combination of several single-component or single-phoneme affixes. Thus, the mentioned issues and the opinions of Turkologists once again suggest that the origin of both affixes and other affixes in Turkic languages has not yet been fully clarified and some questions still remain.

**KEY WORDS: Kipchak group of Turkic languages, affixes, origin, functions.**

## GİRİŞ

Qıpçaq qrupu türk dilləri haqqında çox az sayda tədqiqat işləri vardır. Aparılmış tədqiqat işləri sistemli olmamış və bir sıra fikir ayrılıqlarını özündə göstərir. Bizim tədqiqatımızın əsas məqsədi qıpçaq qrupu türk dillərini müqayisəli şəkildə öyrənmək, tədqiqat işini sistemli şəkildə təqdim etməkdən ibarətdir. Qıpçaq qrupu türk dillərinə aid olan affikslər haqqında da bəzi mübahisəli fikirlərə rast gəlmək mümkündür. Bütün bu məsələlər tədqiqat işinin aktuallığını və əhəmiyyətini şərtləndirir.

Türk dilləri dünyada ən geniş yayılmış dillərdən sayılır. Buna görə bu sahədə aparılmış hər bir tədqiqat işi digər türk dillərinin də inkişafına şərait yaradır. Məhz bu səbəbdən qıpçaq qrupu türk dillərinin tədqiqata cəlb olunması həm keçmişdə, həm də müasir dövrdə vacib məsələlərdən biridir. Bu mövzu ilə bağlı bir çox türkoloqların tədqiqatlarına nəzər salınmış, bəzi mübahisəli məsələlər ön plana çıxarılmışdır.

Qarşıya qoyulan məqsədə çatmaq üçün araşdırmalar aparılmış, mövzu müqayisəli şəkildə öyrənilmiş və sistemləşdirilmişdir.

Tədqiqat işi giriş, əsas hissə və nəticə hissəsindən ibarətdir.

Affikslər

Affikslər sözün qeyri-müstəqil hissəsi olaraq sözyaradıcı və sözformalaşdırıcı kimi qrammatik göstərici funksiyalarını yerinə yetirir. Sözyaradıcı affikslər söz kökünə qoşularaq onun leksik mənasını, bəzən isə qrammatik mənasını da dəyişirlər. Məsələn, qıpçaq qrupu türk dillərindən olan qırğız dilində -çı affiksi isimlərə qoşularaq onun leksik mənasını dəyişir: mal (heyvan) – malçı (heyvandar), koy (qoyun) – koyçu (çoban). Başqa bir affiks (-qı) isə feil köklərinə qoşularaq təkcə onun leksik mənasını deyil, həm də qrammatik mənasını dəyişir, yəni feildən isim yaradır: şıpır (süpürmək) – şıpırqı (süpürgə), suz (süzmək) – suzqu (süzgənc) və s. Formadəyişdirən affikslər isə leksik mənada heç bir dəyişiklik yatarmır, sadəcə sözün formasını dəyişir: adam (adam) – adamdar (adamlar), adamqa (adama), adamdarıbız (adamlarımız) və s.

Qırğız dilində affikslər

Qırğız dilində affikslər aqqlütinativ xüsusiyyət daşıyırlar. Onlar söz kökünə, yaxud da şəkilçilərə qoşulur, lakin öz nisbi müstəqilliklərini qoruya bilirlər. Yəni istənilən vaxt və çox asanlıqla sözdən ayrıla bilirlər. Bütün türk dillərində olduğu kimi qırğız dilində də hər affiksin sözdə öz yeri olur. Məsələn: malçılarqa (maldarlara) sözünə baxsaq, burada mal – kök, -çı – sənət mənası verən sözyaradıcı affiks, -lar – cəm şəkilçisi , -qa – yönlük hal şəkilçisidir. Qeyd etdiyimiz affikslərin yeri dəyişmir və hər hansı bir affiksin çıxarılması digər affikslərin fonetik variantlarına təsir edə bilər, amma qrammatik mənasını dəyişə bilməz.

Müasir qırğız dilində bəzi affikslər tarixən müstəqil söz kimi mövcud olmuşdur. Müəyyən tarixi inkişaf nəticəsində öz müstəqilliyini itirərək qrammatik formalara çevrilmişdilər. Belə affikslərin müəyyənləşdirilməsi yalnız etimoloji təhlil yolu ilə mümkündür. Tarixən müstəqil söz olub, sonradan affikslərə çevrilmiş şəkilçilərə aşağıdakıları göstərmək olar:

- day+daq+teq. Qədim türk dilində -teq affiksi sanki, tək mənasında köməkçi nitq hissəsi kimi çıxış etmişdir: Tenri tek (Allah tək)
- Birinci və ikinci şəxs şəkilçilərinin tarixi kökü şəxs əvəzliklərinə gedib çıxır: min+men+ben, sın+sen. Sen barsan (Sən getsən)

Qırğız dilində bəzi affikslər müəyyən şəraitdə ikili funksiya yerinə yetirə bilər. Başqa sözlə desək, həmin affikslər sözün təkcə qrammatik mənasını deyil, həm də onun leksik mənasını dəyişdirə bilirlər.

Məlumdur ki, müasir dilçilikdə yeni söz əmələ gətirən morfemlərin formalaşmasının dörd əsas yolu vardır. J.O.Tektiqul "Qazax dilində ortaq türk affikslərinin təkamülü" adlı kitabında bu bölgünü belə göstərmişdir:

1) Aqqlütinasiya, yəni mürəkkəb söz və ya söz birləşmələrinin sonuncu komponentinin söz əmələ gətirən şəkilçiyə çevrilməsi;

2) Sadə şəkilçilərdən ayrıca mürəkkəb şəkilçinin yaranması;

3) Uyğunlaşma, yəni sözün son elementinin və ya söz birləşməsinin son sözünün söz əmələ gətirən affikslərə çevrilməsi;

4) Forma dəyişən morfemlərin söz əmələ gətirən affikslərə çevrilməsi.

Sadaladığımız yollardan üçüncü və dördüncü fin-uyğur dillərinə aiddirsə, birinci və ikinci bənddəkilər aqqlütinativ dillərdə sözyaradıcı prosesdə mühüm rol oynayır.

Türk dillərində, o cümlədən qıpçaq qrupu türk dillərində qrammatik forma anlayışı ənənəvi qrammatik forma anlayışından bir qədər fərqlidir. Bu fərq aqqlütinasiya anlayışı ilə bağlıdır. Yəni sözün yaradılmasının spesifik morfoloji yolları ilə əlaqəlidir. Buna görə də müasir türkologiyada affikslərin etimologiyası və mənşəyi haqqında paralel şəkildə inkişaf etmiş iki baxış mövcuddur. Birinci fikrə görə, affikslər aqqlütinasiya qanununa əsasən əmələ gəlmişdir. Belə ki, affikslər zaman keçdikcə sözlərin leksik mənasını, vurğusunu itirərək formalaşmışdır. İkinci nöqteyi-nəzərə əsasən, bir neçə təkkomponentli və ya tək fonemli affikslərin birləşməsi nəticəsində mürəkkəb formalar əmələ gəlmişdir. Birinci fikrin tərəfdarı olan alimlərə İ.A.Batmanov, N.A.Baskakov, F.Bopp və başqalarını göstərmək olar. İkinci qrup alimlərə, yəni affikslərin ayrı-ayrı sözlərdən əmələ gəlməsi faktını şübhə altına almayan, buna baxmayaraq, onların əsasən ilkin dil materialını ifadə etdiyinə və söz kökləri ilə eyni vaxtda yarandığına inananlara V.V.Radlov, A.N.Kononov, N.Z.Hacıyeva və digər alimləri misal göstərmək olar.

İkinci fikrin tərəfdarlarından olan V.V.Radlova görə "hiperaqlütinasiya" adlanan proses kökün və affiksin sıx yapışmasına gətirib çıxarır, onları bölmək, demək olar ki, mümkün olmur. Belə birləşmə və yapışma nəticəsində məhsuldar affiks formalaşır və dil fondu yeni məhsuldar göstəricilər ilə zənginləşir. Beləliklə, alim belə bir qənaətə gəlir ki, aqqlütinativ türk dilləri affikslərinin quruluşu flektiv dillərin suffiksləri ilə oxşardır. (Кононов, 1976).

A.N.Kononov da V.V.Radlov kimi belə qənaətə gəlir ki, türk dillərində bir çox formadəyişdirici və sözdüzəldici affikslərin yaranmasının əsas səbəbi müstəqil leksik məna daşıyan ayrı-ayrı sözlərin affiksal morfemə çevrilməsi deyil, əksinə birləşmənin nəticəsidir. Yəni iki və ya bir fonemli morfemlərin mürəkkəb vahid kimi birləşməsidir. Alim şübhə etmir ki, həm aqqlütinativ, həm də flektiv dillərdə hissəciklərin az bir hissəsi müstəqil sözlərdən əmələ gəlmişdir. (Кононов, 1975).

Bütün aqqlütinativ affikslərin ayrı-ayrı sözlərdən əmələ gəlməsinə şübhə ilə yanaşan bəzi dilçilər onların müstəqil sözlərdən yarandığını etiraf edirlər. Misal olaraq, O.P.Sunik iddia edir ki, Hətta altayşünaslıqda aqqlütinativ affikslər kimi başa düşülən formal elementlərin təbiəti belə ənənəvi dilçilikdə təhrif olunur. Alimin fikrincə, Altay dillərinin affikslərinin ayrı-ayrı leksik vahidlərdən əmələ gəldiyini söyləmək əsassızdır. Alim qeyd edir ki, affiksləri ehtimal olunan leksik prototiplər səviyyəsinə endirmək çox çətindir, çünki bu, müqayisəli-tarixi dilçilik sahəsində ən zəif öyrənilmiş məsələlərdən biridir. Eyni zamanda, O.P.Sunik kök və affiks morfemlərinin etimoloji mahiyyətinin açılmasının da əleyhinə deyil. Alim flektiv və aqqlütinativ dillərin yaranmasından əvvəlki dövrdəki affikslərin çoxunun müstəqli mənalı sözlər olduğunu gələcəkdə sübut etmək imkanının mümkünlüyünü də etiraf edir. (Суник, 1959).

Qazaxıstanlı türkoloq M.Tomonov 1986-cı ildə yazdığı "Feil əmələ gətirən əlavələrin tarixindən" adlı məqaləsində türk dillərinin affiksləri haqqında belə bir qənaətə gəlmişdir: "Türk dillərindəki affikslərin müxtəlif dəyişikliklər nəticəsində müstəqil sözlərdən əmələ gəldiyini, bəzilərinin isə ilkin affiks olmasını inkar etmək olmaz. Sonuncu qrupun mövcudluğunu təsdiq edən fakt affikslərin sinkretik işlənməsidir". (Tomanov, 1986).

Beləliklə, qeyd etdiyimiz məsələlər, türkoloqların fikirləri bir daha onu deməyə əsas verir ki, həm türk dillərindəki affikslərin, həm də digər affikslərin mənşəyi hələ tam dəqiqləşməmiş və bəzi suallar hələ də qalmaqdadır.

Başqırd dilində affikslər

Qıpçaq qrupu türk dilləri qrupuna daxil olan başqırd dilində həm milli başqırd sözlərinin morfemik quruluşu, həm də başqa dillərdən alınma sözlərdə baş verən morfonoloji və semasioloji dəyişikliklərin aydınlaşdırılması sinxronik və diaxronik planlarda sistemli və daha ətraflı şəkildə öyrənilməmişdir. Bundan başqa, başqırd dilçiliyində başqırd və müxtəlif sistemli digər dillərin müqayisəli tədqiqi zəif inkişaf etmiş və problemli məsələ kimi qalmaqdadır.

Morfemikada əsas vahid morf və morfem çıxış edir. Morfemlərin də öz növbəsində müxtəlif variantları fərqləndirilir. Bu həm flektiv, həm də aqqlütinativ dillərə, o cümlədən başqırd dilinə də aiddir.

Başqırd dilində, digər türk dillərində olduğu kimi əhəmiyyətinə, yerinə və funksiyalarına görə morfemlər iki növə bölünür: a) kök morfemlər və ya köklər; b) affiks morfemlər və ya affikslər. Fikrimizi misal üzərində əsaslandıraq: mal (kök) – sı (affiks) – lar (affiks) // malsılar (maldarlar).

Başqırd dilində bütün affiks morfemlərə "affiks" deyilir. Affiks – sözə leksik, qrammatik və leksik-qrammatik məna verən morfemlərdir. Affikslər ya kökə, ya da kökə qoşulmuş digər affikslərə

birləşirlər: tanı (tanımaq), tanı-ş (tanış), tanı-ş-lık (tanışlıq). Affikslər həm sərbəst ola bilmir, həm də kəmiyyət tərkibi məhdud olur.

Türk dillərində, o cümlədən başqırd dilində affiksal morfemlərin təbiəti hələ tam dəqiqləşməsə də, düşünürük ki, affiksləri, onların bölgülərini öyrənmək məqsədəuyğundur. Fikrimizcə, affiksləri məna və funksiyalarına görə üç qrupa bölmək olar: söz əmələ gətirən, forma yaradan və söz dəyişdirici. N.A.Baskakov da özünün "Türk dillərinin tarixi-tipoloji morfologiyası" adlı kitabında affiksləri belə bölmüşdür. (Баскаков, 1979). Bundan başqa, bir çox tatar, qazax türkoloqları da bu prinsipə əməl edirlər.

Başqırd dilində sözyaradıcı affiksləri funksiyasına görə aşağıdakı kimi qruplaşdırmaq olar:

a) Sözyaradıcı proses zamanı verilmiş sözü başqa nitq hissəsinə çevirən affikslər: yılı (isti – sifət)+lık – yılılık (istilik – isim).

b) Verilmiş sözlə eyni nitq hissəsinə aid olan yeni sözlər yaradan affikslər: taş (daş – isim)+sı – taşsı (daşçı – isim).

c) Müxtəlif nitq hissələrindən yeni sözlər yaradan çoxfunksiyalı affikslər: kom (qum)+lok – komlok (qumluq); yaktı (aydın)+lık – yaktılık (aydınlıq) və s. Misallardan da göründüyü kimi eyni affiks fərqli nitq hissələrinə qoşularaq yeni sözlər yaratmışdır.

Başqırd dilinə məxsus sözyaradıcı affiksləri mənşəyinə görə iki qrupa bölmək olar: a) milli başqırd affiksləri (ümumtürk) və b) xarici dilli affikslər (ərəb, fars, rus, latın və yunan dillərində alınmış affikslər nəzərdə tutulur).

Ümumtürk mənşəli əsl başqırd sözlərində söz köklərindən sonra gələn affikslər fərqləndirilir, söz kökündən əvvəl gələn şəkilçilərə bu sözlərdə rast gəlinmir. Bununla belə, qeyd etmək lazımdır ki, digər türk dillərində olduğu kimi başqırd dilində də morfematik söz əmələ gəlmə üsullarından biri kimi prefiksasiya hadisəsi müşahidə edilir. Lakin bele affikslərin istifadə dairəsi məhduddur, çünki bunlar yunan, latın, fars və s. dillərdən götürülmüş prefikslərdir: bəxet (bəxt) – bədbəxet (bədbəxt), doğa (dua) – bəddoğa (bəddua), xisap (hesab) – bixisap (hesabsız) və s.

Formadüzəldən affikslər söz kökünə birləşərək tək onun qrammatik mənasını dəyişmir, həm də leksikasına müəyyən məna çaları verir. Nəticədə, yeni morfoloji kateqoriyaya malik söz forması yaranır. Müasir başqırd dilindəki formadüzəldən affikslərə aşağıdakıları misal göstərmək olar: subyektiv qiymətləndirmə affiksləri (əsə-kəy – anacıq); cəm kateqoriyasının affiksləri (ülən-dər – otlar); modallıq kateqoriyasının affiksləri (at-mı – atmı); dərəcə kateqoriyasının affiksləri (ak-hıl – ağımtıl); say affiksləri (berense – birinci); təsriflənməyən feil affiksləri (belqən – bilən); zaman kateqoriyasının affiksləri (kür-ze – gördü, kür-er – görər); feillərin inkar affiksləri (yap – bağlamaq, yap-ma – bağlamaq).

Sözdəyişdirici affikslər söz köklərinə qoşularaq sözün leksik mənasına heç bir təsir göstərmirlər, sadəcə qrammatik mənanı dəyişirlər və sintaktik münasibətlərin yaranmasında iştirak edirlər. Bu qrup affikslərə hal, mənsubiyyət, şəxs kateqoriyalarının affikslərini misal göstərmək olar. (Ишбаев, 2012).

Qaraqalpaq dilində affikslər

Qıpçaq qrupu türk dilləri ailəsinə aid olan dillərdən biri də qaraqalpaq dilidir. Qaraqalpaq dilində sözyaradıclığı prosesi ən çox morfoloji yolla baş verir. A.Bekberqenov qeyd edir ki, qaraqalpaq dilində morfoloji üsulun üç forması var: şəkilçi, əsasların quruluşu və abreviatura. Bunlardan ən məhsuldarı affikslərdir. Affikslər dedikdə şəkilçilər (sadə və mürəkkəb) nəzərdə tutulur.

Müasir qaraqalpaq dilinin qrammatikasında göstərilir ki, ancaq 4 nitq hissəsi, yəni isim, sifət, feil və zərflər affikslər vasitəsilə yarana bilirlər. Bundan başqa, digər qıpçaq qrupu türk dillərində olduğu kimi qaraqalpaq dilinin qrammatikasında affikslər üç qrupa bölünür: sözyaradıcı, formadəyişdirici (və ya formayaradıcı) və sözdəyişdirici.

"Müasir qaraqalpaq ədəbi dilinin qrammatikası" kitabında formayaradıcı affikslərə ismin subyektiv qiymətləndirilməsini bildirən formantlar, sifətin və zərfin dərəcə göstəriciləri, məsdər, feili sifət, feili bağlama şəkilçiləri, sözdəyişdirici affikslərə isə mənsubiyyət, hal və şəxs şəkilçiləriaid edilir.

Ümumiyyətlə, yeni söz əmələ gətirmənin affiksal vasitələrini təyin edərkən ümumi dilçilik ondan çıxış edir ki, affikslər dilin məna bildirməyən qrammatik elementləridir. Onlar söz köklərinə qoşularaq ya yrni sözlər yaradır, ya da sözlərin formalarını dəyişə bilirlər. Bura qədər nəzərdən keçirdiyimiz qıpçaq qrupu türk dillərində affikslərin xüsusiyyəti, demək olar ki, bir-birinə bənzəyir və ciddi fərqlər görmürük.

Kumık dilində affikslər

Qıpçaq qrupu türk dillərindən olan kumik dilində sözyaradıcı affikslər məhsuldar, qeyri-məhsuldar və az məhsuldar affikslərə bölünür. Məhsuldar affiksin əsas göstəricisi yaratdığı yeni sözlərin sayının çox olmasıdır. Qeyri-məhsuldar affikslərin əksəriyyəti kökə yapışmış şəkildə mövcudluğunu qoruyur və ondan ayrılmır. Az məhsuldar affikslər isə kumık dilində ad yaratma baxımından iki qrupa bölünür: adlardan isim düzəldən və feillərdən isim yaradan affikslər. Əgər isim feildən yaranıbsa yeni söz həmin hərəkətin nəticəsi kimi başa düşülür: qes (kəs) – qesek (dilim). Əgər isim adlardan yaranırsa, onda həmin yeni yaranmış söz orijinal əsaslara müxtəlif aspektlərdə birbaşa münasibətdə olur: vatan (vətən) – vatandaş (vətəndaş).

Artıq qeyd etdiyimiz kimi digər türk dillərində olduğu kimi kumık dilində də adlardan isim düzəldən məhsuldar və qeyri-məhsuldar şəkilçilər var. Bəzi məhsuldar şəkilçilər haqqında türkoloqların müxtəlif baxışları mövcuddur. Ən məhsuldar şəkilçilərdən sayılan –lıq (лыкъ) affiksinin mənşəyi haqqında türkoloqların fikirlərinə nəzər salaq.

X.A.Maxtiyev "Kumık dilində ad sözyaradıclığı müqayisəli-tarixi aspektdə" adlı əsərində qeyd edir ki, -lıq affiksi isim, sifət bə bəzi feili-sifətlərin yaranmasında iştirak edir. Bu affiks ən çox inkarlıq mənası ifadə edən sözlərə qoşularaq isim əmələ gətirir: kepsizlik – kefsizlik və s. (Махтиев, 2002).

N.K.Dmitriyev –lıq affiksinin mənşəyi haqqında danışarkən qeyd etmişdir ki, bu affiks yeni uyğur və başqa dillərdə "bol, dolu" mənasında işlənən "lik" sözündən əmələ gəlmişdir.

Digər türk dillərində olduğu kimi kumık dilində də -çı affiksi məhsuldar affikslərdən biri sayılır. Bu affiksin müasir kumık dilində məhsuldarlığının artmasına səbəb sənayə və kənd təsərrüfatı sahələrində yeni peşələrin, ixtisas sahələrinin əmələ gəlməsidir: bavçı (bağçı), etikçi (çəkməçi) və s.

Müasir kumık dilində az məhsuldar affikslərə əsasən aşağıdakıları göstərmək olar: -sa, -saq, -tık, -çak, -lak, -dan və s. Bu affikslərin söz yaratma arealı bir qədər məhduddur. (Гаджиахмедов Т.И., Мугутдинова Ю.К., 2022).

**NƏTİCƏ**

Beləliklə, yuxarıda qeyd etdiyimiz və qıpçaq qrupu türk dillərinə aid olan dillərin affiksləri haqqında araşdırma apararkən belə qənaətə gəlmək olar ki, ümumilikdə türk dillərində affikslərin mənşəyi, işlənmə dairəsi, funksiyası, demək olar ki, oxşardır. Xüsusilə, eyni dil qrupuna aid olan dillərdə bu oxşarlıq özünü daha aydın göstərir. Ümumiyyətlə, tatar, qazax və qırğız dil ailəsinə aid olan türklərin dillərində oxşarlıq daha çoxdur və onlar bir-birlərinin dilini bilməsələ belə, çox rahat ünsiyyət qura bilirlər. Tatar dili daha yumşaq dil olub sonluqları yumşaq tələffüz edilir. Qırğız dili daha kobud və sərt dildir, sanki sonluqlar kəsilib. Qazax dili isə bu iki dilin arasındadır, bəzi hallarda yumşaq, bəzi hallarda kobud səslənir. Belə oxşarlıq və uyğunluqlar türk dillərinin əksəriyyətində müşahidə edilir.

**ƏDƏBİYYAT**

1. Кононов А.Н. (1976). О природе тюркской агглютинации. Вопросы языкознания. «Наука». № 4, 3-18.

2. Кононов А.Н. (1975). Актуальные тюркологические заметки. АН СССР; АН Азербайджанской ССР, 127.

3. Тектигул Ж.О. (2013). Эволюция общетюркских аффиксов в казахском языке. Академия Естествознания. 277.

4. Суник О.П. (1959). О происхождении морфологической структуры слова. Вопросы языкознания. Академии Наук СССР. № 5, 43-52.

5. Баскаков Н.А. (1979). Историко-типологическая морфология тюркских языков. Наука. 274.

6. Ишбаев К.Г. (2012). Виды аффиксальных морфем в башкирском языке. Филология и искусствоведение. 518-520.

7. Ҳәзирги қарақалпақ әдебий тилиниң грамматикасы. (1994). Нөкис: Билим. 452.

8. Махтиев Х.А. (2002). Словообразование в кумыкском языке в сравнительно-историческом освещении. 318.

9. Гаджиахмедов Т.И., Мугутдинова Ю.К. (2022). Аффиксальное словообразование имён существительных в кумыкском языке. Мир науки, культуры, образования. № 1 (92), 413-415.

10. Tomanov. M. (1986). "Feil əmələ gətirən əlavələrin tarixindən". Qazax dili və ədəbiyyatı. Elm, №4, 270.

# "KİTABİ-DƏDƏ QORQUD" DASTANINDA MORFOLOJİ PARALELLİK

**MAHMUDOVA FİDAN FUAD QIZI**
Gəncə Dövlət Universiteti
Filologiya/ Filologiya elmləri
fmahmudova84@mail.ru
GƏNCƏ, AZƏRBAYCAN

**XÜLASƏ**

"Kitabi-Dədə Qorqud" dastaninda morfoloji paralellik

Dilimizin leksikasının böyük hissəsini təşkil edən ismin qrammatik kateqoriyalarında nitq mədəniyyəti normalarının araşdırılmasında "Dədə Qorqud" dastanları əvəzsiz mənbə rolunu oynayır. İsmin halları müəyyən tarixi dövrdən bəri dəyişmiş, inkişaf etmiş, yeni məna xüsuiyyətləri qazanmışdır. Onların dildə işlənməsində əvəzlənmələr, lokallıq elementləri, bəzi hallarda isə norma pozulmaları və ümumi qayda ilə uyğunlaşmayan məqamlar üzə çıxır ki, bunların izahında etimoloji arşdırmaya ehtiyac yaranır. "Kitabi-Dədə Qorqud"un qrammatik xüsusiyyətlərini, dastandakı isimlərdə hal şəkilçilərini, onların feillərlə əlaqəsini araşdırdıqda bir çox suallara cavab tapmaq mümkün olur. Bu cəhətdən onun tədqiqin dilimizin incəliklərinin öyrənilməsində böyük əhəmiyyəti vardır."Dədə Qorqud" dastanlarında əvəzlənmələrə çox təsadüf edilir, lakin bunlar öz xarakterinə görə dialektlərimizdə özünü göstərən paralellərdən fərqlənir. Dastanlardakı yönlük hal şəkilçisi daha çox məkani hallarla əvəzlənir. Dastanlarında yönlük və çıxışlıq halın əvəzlənmələrinə də çox təsadüf edilir. Məqalədə bu barədə məlumat verilir, həmçinin dialektlərdə olan əvəzlənmələrdən də danışılır.Ümumilikdə, məqalədə "Kitabi-Dədə Qorqud" dastanında hal şəkilçilərinin inkişaf yolları göstərirlır. Dastanlarda hal şəkilçilərinin bir-birini əvəz etməsi, şəkilçilərin işlənməsində lokallıq məsələləri də əksini tapır. Dialektlərimizdə hal şəkilçiləri ilə bağlı bəzi norma pozulmaları və onların səbəbləri araşdırılır.

**SUMMARY**

Morphological parallelm in the epic "Kitabi-Dade Qorgud".

"Dade Gorgud" sagas play the role of an invaluable source in the study of speech culture norms in the grammatical categories of nouns, which make up a large part of the lexicon of our language. The cases of the noun have changed since a certain historical period, developed, acquired new meaning characteristics. Substitutions, elements of locality, and in some cases violations of norms and points that do not conform to the general rule are revealed in their processing in the language, for the explanation of which there is a need for etymological research. It is possible to find answers to many questions when examining the grammatical features of "Kitabi-Dada Gorgud", the case suffixes of nouns in the epic, and their relationship with verbs. In this respect, its study is of great importance in learning the intricacies of our language.In "Dada Gorgud" epics, there are many substitutions, but they differ from the parallels that appear in our dialects due to their nature. The directional case suffix in epics is replaced by more spatial cases. In his epics, there are also frequent substitutions of direction and speech. The article provides information about this, and also talks about substitutions in dialects.In general, the article shows the ways of development of case suffixes in "Kitabi-Dada Gorgud" epic. The substitution of case suffixes in epics, locality issues are also reflected in the processing of suffixes. Some norm violations related to case suffixes in our dialects and their reasons are investigated.The article shows the ways of development of case suffixes in the epic “Kitabi-Dada Gorgud”. The substitution of case suffixes in epics and issues of locality also affect the processing of suffixes. In our dialects, some violations of norms associated with cases of nouns and their causes are explored.

**AÇAR SÖZLƏR: "Dədə Qorqud",dastan, şəkilçi, əvəzlənmə, paralellik, lokallıq.**

**KEY WORDS: "Dade Gorgud", saga, suffix, substitution, parallelism, locality.**

"Kitabi-Dədə Qorqud"un elm aləminə bəlli olması ilə Azərbaycan dilinin tədqiqi sahəsində yeni imkalar yarandı. Dastanların ədəbi-bədii, linqvistik, tarixi-coğrafi, fəlsəfi-psixoloji, etnoqrafik, etnogenetik təhlilinə dair çoxlu əsərlər, tədqiqat işləri yazılmışdır. Dastanın həm şifahi, həm də yazılı ədəbi dil nümunəsi olması dilimizin öyrənilməsində böyük əhəmiyyət kəsb edir. Bu baxımdan da dastan üzərində qiymətli tədqiqatlar aparılaraq onun fonetik, leksik, qrammatik quruluşu ətraflı araşdırılmış, araşdırılır və gələcəkdə də tədqiq ediləcəkdir.

Dilimizin leksikasının böyük hissəsini təşkil edən ismin qrammatik kateqoriyalarında nitq mədəniyyəti normalarının araşdırılmasında "Dədə Qorqud" dastanları əvəzsiz məxəz rolunu oynayır. İsmin halları müəyyən tarixi dövrdən bəri dəyişmiş, inkişaf etmiş, yeni məna xüsuiyyətləri qazanmışdır. Onların dildə işlənməsində əvəzlənmələr, lokallıq elementləri, bəzi hallarda isə norma pozulmaları və ümumi qayda ilə uyğunlaşmayan məqamlar üzə çıxır ki, bunların izahında etimoloji arşdırmaya ehtiyac yaranır. "Kitabi-Dədə Qorqud"un qrammatik xüsusiyyətlərini, dastandakı isimlərdə hal şəkilçilərini, onların feillərlə əlaqəsini araşdırdıqda bir çox suallara cavab tapmaq mümkün olur.

Dilimizdə hallarla bağlı ziddiyyətli məqamlar var ki, bunlardan biri paralellikdir: Sağ olsun anana (anan) ki, belə qız tərbiyə edib, Bulaq (bulağa) tərəf get, uşaqlar oradadır. Dilimizdə hal şəkilçilərinin bü cür işlənməsinə aid nümunələr kifayət qədərdir. Bunların bəzisi morfoloji normaya ziddir və bu ziddiyətin nədən ibarət olduğunu bilmək üçün müxtəlif zamanda, məkanda özünü göstərən dil faktlarına, bu halların daha çox təzahür etdiyi və arxaik formaları günümüzədək qoruyub saxlayan dialektlərimizə, qədim yazılı mənbələrə, klassik ədəbiyyat nümunələrinə və s. nəzər salaraq müqayisə aparmaq, oxşar və fərqli cəhətləri ortaya çıxarmaq, morfoloji normanın pozulma səbəblərini aydınlaşdırmaq lazım gəlir.

"Dədə Qorqud" dastanlarında əvəzlənmələrə çox təsadüf edilir, lakin bunlar öz xarakterinə görə dialektlərimizdə özünü göstərən paralellərdən fərqlənir. Dastanlardakı yönlük hal şəkilçisi daha çox məkani hallarla əvəzlənir: Qara yerin üstünə ağ ban evin dikdirmişdi; Pasnik qara Dərvənd ağzına düş vermiş idik; Siz bu yolda bu taşı neçün yığırsız? Əlbəttə, tarixilik baxımından bunu morfoloji norma pozulması adlandırmaq olmaz.

Dialektlərimizdə yönlük və yerlik hal əvəzlənmələrinə tez-tez rast gəlinir. "Dədə Qorqud " dastanlarında belə paralellərlər çoxluq təşkil edir: On otuz yaşında tolsun, həq sizə yaman gətürməsin. Kafərin kəlisasın yığdılar, yerinə məscid yapdılar. Gög alan görklü çəmənə çadır tikdi. Oğul, Beyrək, qanda gedərsən? ("Kitabi Dədə Qorqud",1988)Verilmiş misallarda həm yönlük halın yerlik hal əvəzinə işlənməsini, həm də bunun əksini müşahidə edirik. Müasir dilimizdə yönlük və yerlik halın halın oxşar cəhəti onların hər ikisinin məkani hal olmasıdır. Qrammatik məna xüsusiyyərləri fərqli olsa da, bəzən bu halların bir-birini əvəz etməsi özünü göstərir. Müasir dilimizdə buna az təsadüf olunur. Bu paralelər daha çox qədim türk yazılı abidələrinin dilində mövcud olmuşdur. Bu abidələrdə yönlük halın daha çox yerlik hal ilə paralel işləndiyini görürük.

"Dədə Qorqud" dastanlarında yönlük və çıxışlıq halın əvəzlənmələrinə də çox təsadüf edilir: Bunın üzərinə bir qaç zəman keçdi . Bunını üzərinə on altı yıl keçdi. Mən sana asarlar götürməgil,ağac!

Dialektlərdə də belə əvəzlənmələr müşahidə olunur: Sizin öyə xoşum gəlir (Zaqatala Qımır). Ordubad, Salyan-Qaçaqkənd, Şahbuz dalektlərində də eyni vəziyyət təkrar olunur. Mına mığayat ol (Şərur). İşləmək feili (saat) şərq dialektlərində çıxışlıq, qərb dialektlərində isə yönlük halı ələb edir: Beşdən on dağa işdir (Bakı), Beşə on dəqiqə işdiyir (Qarabağ) (Şirəliyev,2008). Dilimizdə yönlük halla bağlı morfoloji normaya zidd daha bir maraqlı məqam var ki , ilk baxışda bu, nəzərə çarpmır, məs.: Qız özündən 15 yaş böyük oğlana getdi, O qız sənə gəlməz. Getmək, gəlmək kimi feillər təsirsiz olub yönlük və yerlik halları idarə edir və məkan mənalı isimlərlə həm birbaşa, həm də qoşmalar vasitəsilə idarə əlaqəsində olur, məs.: evə getdim, evə sarı getdim və s. Obyekt mənalı isimlərlə isə birbaşa yox, qoşmalar və s.vasitəsilə əlaqəyə yaradır; məs.: Anama getdim yox, Anama doğru getdim; Anama görə getdim və s. Digər türk dillərində bu, morfoloji normanın tələbinə uyğundur. Müasir dilimizdə isə dilimizin morfoloji qaydalarına ziddir. Bunu daha qədim formaların müasir dilimizə gəlib çatması ilə izah etmək olar. "Kitabi-Dədə Qorqud" dastanında sözlərin bu cür sintaktik əlaqələnməsinə tez-tez rast gəlinir: Qısırca yengə turdı, aydır: "Mərə, dəli ozan, ərə varan qız mənəm ! "- dedi ; "Dədəm Qorqud gəlsün, bu oğlana ad qoysun: biləsincə alub, babasına varsun" - dedilər ?("Kitabi- Dədə Qorqud",1988).

Yönlük halla bağlı daha bir məqam bəzi yer zərflərinin yönlük halı idarə edən feillərlə hal şəkilçisini iştirakı olmadan sintaktik əlaqəyə girməsidir. Baxmaq, getmək, gəlmək, çıxmaq, düşmək kimi feillər həm yönlük, həm də çıxışlıq halda olan sözləri idarə etdiyi etdiyi halda, irəli, geri, yuxarı, aşağı, bəri zərfləri yönlük hal şəkilçisinin ıştirakı olmadan da bu feillərlə idarə olunur. Güzgüdən bəriyə baxan uşaq sanki onun surəti deyil, kənd yoldaşlarından biri idi . Yüyürüb qoyunlarını bəri hayladı (Paşayev,2002).

Göründüyü kimi, bu cümlələrdə yer zərfi həm yönlük hal şəkilçisi ilə, həm də bu şəkilçinin iştirakı olmadan işlənib. İlk baxışdan bu, adi hal kimi görünə bilər. Əgər bu normal haldırsa, digər yer zərflərində də (sağ, sol, dal, qabaq və s.) təkrar olunmalıdır, ancaq bu qaydanı başqa zərflərə şamil etmək olmur. Bunu dil faktını izah etmək üçün həmin şəkilçilərin etimologiyasına nəzər salaq.

"Dədə Qorqud" dastanlarında yönlük hal şəkilçisi aşağıdakı variantlarda işlənmişdir:

1. -a, -ə, -ya, yə şəkilçiləri ilə : Beyrəgin yavuqlısına xəbər oldı
2. -arı, -əri şəkilçiləri ilə; Haman bəni qapudan tışarı eylə,mədəd ?("Kitabi-Dədə Qorqud",1988).

Əslində bu zərflər yönlük hal şəkilçisi ilə işlənməməlidir, belə ki, onların tərkibində yönlük hal şəkilçisi mövcuddur.

Yerlik halın qrammatik mənasının yer məzmunu ifadə etməsi, şəkilçisi, sintaktik vəzifəsi, yəni əşyalıq və məkan mənası bildirməsindən asılı olaraq cümlədə yer zərfliyi və tamamlıq olması dilimizdə norma hüququ qazanmışdır(Hüseynzadə, 2007).

Bu qrammatik norma olsa da, yerlik hal şəkilçisinin müxtəlif üslubi çalarlar yaratması və müxtəlif qrammatik mənalar daşıması da istisna deyildir. Onun şifahi və yazılı dilimizdə işlənməsi zamanı paralellik, lokallıq, leksikləşmə, norma pozulmaları kimi xüsusiyyətlər özünü göstərir. Bəzi hallarda bu hal şəkilçisinin yaratdığı qrammatik məna yer məzmunundan uzaqlaşır.

"Dədə Qorqud" dastanlarında yerlik hal şəkilçisinin instrumental şəkilçi ilə əvəzlənməsi müşahidə olunur: Bir yazın, bir güzin buğayla burğayı savaşdırarlardı. Bu vəziyyət bəzi dialektlərdə də özünü göstərir: Qışın ot tapbadıx; Yazın gəldilər dam tix`dilər və s. (Amasiya). İstisna hallarda dialektlərdə hər iki şəkilçinin (instrumental və yerlik) birgə işlənməsinə təsadüf edilir: Çaltix`,buğda, arpa,darı,saçardıx o vaxtında (Şəki) (Şirəliyev,2008).

Çıxışlıq və yerlik halın da məkani hal olması hər iki halı yaxınlaşdıran əsas cəhətdir. Tarixən bu halların bir-birini əvəz etməsi müşahidə edilsə də, müasir dilimizdə çıxışlıq hal şəkilçisi ilə yönlük hal şəkilçisi arasında konkret qrammatik məna fərqləri var. Hər iki halın paralel işlənməsinə daha çox qədim türk abidələrinin dilində rast gəlinir. Dialektlərimisdə çox az sayda belə əvəzlənmə ilə rastlaşmaq mümkündür."Dədə Qorqud" dastanlarında belə əvəzlənmələrə nisbətən az təsadüf edilir: Üzəngiyə qalqıb qatı çəkdi, uz atdı, oğlanı iki talusının arasında urub çıqdı ; Qamın aqanyügrək sudan bir oqul aqıtdınsa,degil man`a! Ağ əllərin qarusından bağlan; Oğlan buğanın alnından yumruğun gedirdi, yolından savıldı ("Kitabi-Dədə Qorqud",1988)Belə nümunələrə dastanda çox az rast gəlinir və bu da həmin dövrlərdə artıq çıxışlıq hal şəkilçisinin formalaşmasından xəbər verir. Əgər Orxon-Yenisey abidələrinin dilində iki məkani hal (yönlük və yerlik-çıxışlıq ) mövcud idisə, "Dədə Qorqud" dastanlarında müasir dilimizdə olduğu kimi, üç məkani hal mövcud idi.

Müasir ədəbi dilimizdə də yerlik və çıxışlıq halların paralel işlənməsi faktları var: Məqaləni bu jurnalda oxudum və ya Məqaləni bu jurnaldan oxudum; Pencəyi ağaca asdım və ya Pencəyi ağacdan asdım; Düşmənin başına vurdu və ya Düşmənin başından vurdu.

Dialektlərimizdə çıxışlıq halla bağlı bəzi norma pozulmaları qeydə alınır ki, bu da bir neçə feilin idarəsi zamanı ortaya çıxır. Bəzi areallarda soruş, xahiş elə, xöşu gəl, muğayat ol, heyif al, get, işlə(saat), qal kimi feillər müasir ədəbi dilimizdə olduğundan fərqli tələffüz edilir və çıxışlıq hal əvəzinə yönlük hal şəkilçisi qəbul edir: Bənəvşə iyləmağa xoşum gəlir (Zaqatala - Qımır); Mənim ağaca xoşum gəlir (Şahbuz); Yaydan on beş gün qalmış bura su basar (Salyan -Ramazanlı); Mına muğayat ol (Şərur-Mahmudkənd) (Şirəliyev, 2008). Qədim türk abidələrinin dilində də bəzi feillər müasir dilimizdə oldğu kimi çıxışlıq halı deyil, yönlük halı idarə edir: Negi bir yekni tapa umayın kişikə sorğıl -Pis ruhu necə tapmağı adamdan soruş (Древнетюркский словарь,1969). Bu cümlədə soruşmaq feilinin əcdadı olan sor feilinin yönlük hal şəkilçili ismi idarə etdiyini müşahidə edirik. Ehtimal oluna bilər ki, cümlədəki sorğıl feili soru qılmaq, yəni sual etmək və ya sual vermək feilini əvəz edir ki, bu feil müasir ədəbi dilimizdə də yönlük halı idarə edir və bu, morfoloji normadır: Uşaqlar müəllimə sual verdilər. Lakin soru sözü ərəb mənşəli sual ismi ilə əvəz edildiyindən və sorğu, soruş, soraq kimi sözlərin tərkibində daşlaşdığından ( bu sözlərdəki kök və şəkilçi aydın görünsə də,

qrammatikamızda bu sözlər sadə söz kimi, yəni tərkib hissələrinə ayrılmadan morfoloji təhlilə cəlb olunur ki, əslində bu cür səthi təhlil yolverilməzdir) dialektlərdə özünü göstərən bu hal əslində norma pozulması deyil və etmolji araşdırmalar da bu fikri təsdiq edir. Güman etmək olar ki, leksikamıza sonradan daxil olan sual ismi mövcüd olmasaydı, digər türk dillərində olduğu kimi dilimizdə də bu cür idarə morfoloji norma pozulması kimi qeyd olunmazdı. Məntiqi cəhətdən də yanaşıldıqda sorgu-sual kimə isə yönləndirilir və bu cür feillərin yönlük hal şəkilçili sözləri idarə etməsi təbii haldır. Bu dil faktı bütün dialektləri əhatə etmədiyindən və soruş, xahiş elə, xöşu gəl, muğayat ol, heyif al, get, işlə(saat), qal kimi feillərin çıxışlıq halı idarə eməsi geniş nird arealını əhatə etdiyindən bu ədəbi dilimizdə norma kimi qəbul olunmuşdur. "Dədə Qorqud dastanlarının dili üzərində aparılan morfoloji araşdırmalar da bu cür halların bəzi feillərin morfoloji quruluşunun zaman keçdikcə dəyişməsinin nəticəsində baş verdiyini sübut edir, məs.: Qazana bu söz xoş gəldi ("Kitabi-Dədə Qorqud",1988) cümləsindəki feil müasir dilimizdə adətən xoşu xəldi, xoşuma gəldi və s. şəkilində işlənir və bu frazeoloji birləşmənin birinci hissəsində işlənən xoşum, xoşu sözlərindəki mənsubiyyət şəkilçisi bu birləşmənin yiyəlik hallı sözlə uzlaşma əlaqəsində olmasını göstərir. Əgər bu cümləni müasir fomada ifadə etsək, bu şəkildə olar: Qazanın bu söz xoşuna gəldi. Beləliklə, verilmiş frazeoloji birləşmə idarə əlaqəsində olduğu isimlə artıq uzlaşma əadəsi ilə bağlanır. Böylə digəc Qazana qəhər gəldi ("Kitabi-Dədə Qorqud",1988) cümləsində isə qəhər gəldi frazeoloji birləşməsi yönlük hal tələb etdiyi halda, müasir dilimizdə bu birləşmə artıq frazeoloji birlışmə deyil, düzəltmə feil kimi formalaşmış (qəhərləndi ) və bununla əlaqədar olaraq onun əlaqə forması da dəyişmiş, yəni idarə əlaqəsini uzlaşma əlaqəsi əvəz etmişdir: Qazan qəhərləndi. Bəzi cümlələrdə isə bu fərqli formlarda təzahür edir: Qazana qeyrət gəldi cümləsindəki frazeoloji birləşmə ilə ifadə olunmuş xəbər müasir dilimizdə qeyrətə gədi şəklindədır və bu da cümlənin strukturuna təsir göstərir. Bəglər, bilürmisiz, Qazana necə heyif eyləmək gərək?("Kitabi-Dədə Qorqud",1988) cümləsindəki heyif eyləmək birləşməsi müasir dilimizdə heyif çıxmaq, heyif almaq şəklinə düşdüyündən idarə forması da dəyişərək çıxışlıq hal olmuşdur və s. Buradan məlum olur ki, müxtəlif tarixi mənbələrdə, dialektlərdə isimlərin paralellər yaratmasının əsas səbəbi feillərlə əlaqədardır.

Dastandan gətirilən misallar onun həqiqətən də milli mədəniyyətimizin ən zəngin qaynaqlarından biri olduğunu sübut edir.

**ƏDƏBİYYAT**

1. Древнетюркский словарь. Ленинград, 1969.
2. "Kitabi-Dədə Qorqud". Bakı, 1988.
3. M. C.Paşayev. "Bir gəncin manifesti" Bakı, 2002.
4. M. Hüseynzadə. Müasir Azərbaycan dili . III hissə. Bakı, 2007.
5. M. Şirəliyev. Azərbaycan dialektologiyasının əsasları. Bakı, 2008.

# AZƏRBAYCAN DİLİNİN SABİRABAD ŞİVƏSİNİN XÜSUSİYYƏTLƏRİ

**ƏSƏDLİ AYSUN**
OYU, Humanitar və dillər fakültəsi
Filologiya ixtisası, 3-cü kurs
Aysunasadova99@gmail.com
BAKI, AZƏRBAYCAN

**XÜLASƏ**

Tezisdə Azərbaycan dilinin Sabirabad şivəsinin fonetik, leksik və qrammatik xüsusiyyətləri tədqiqata cəlb olunmuşdur. Araşdırma ilə tanış olmaq şagird və tələbələrin Sabirabad şivəsi ilə yaxından tanış olmalarına, bu şivə haqqında məlumat əldə etmələrinə və Sabirabad şivəsi haqqında təsəvvürlərinin formalaşmasında faydalı ola bilər. Tədqiqat işinin aparılmasında təsviri, müqayisəli və müşahidə metodlarından istifadə olunmuşdur.

**AÇAR SÖZLƏR: ŞİVƏ, LƏHCƏ, FONETİK XÜSUSİYYƏTLƏR, LEKSİK XÜSUSİYYƏTLƏR, QRAMMATİK XÜSUSİYYƏTLƏR**

**SUMMARY**

In the thesis, the phonetic, lexical and grammatical features of the Sabirabad dialect of the Azerbaijani language were involved in the study. Acquaintance with the research can be useful for pupils and students to become familiar with the Sabirabad dialect, to get information about this dialect and to form their ideas about the Sabirabad dialect. Descriptive Comparative and observational methods were used in conducting the research

**KEY WORDS: DIALECT, DIALECT, PHONETIC FEATURES, LEXICAL FEATURES, GRAMMATICAL FEATURES**

## GİRİŞ

Dialekt anlayışı altında dilçilikdə dilin məhdud ərazidə işlədilən növü (variantı) nəzərdə tutulur [2, səh.6]. Dialekt termini məhdud ərazidə işlədilən ünsiyyət formasının adıdır [2, səh.7]. Dialektologiyanın əsas terminlərinin mahiyyəti, işlənmə məqamları dilçilikdə mübahisəlidir. Müasir dialektoloji ədəbiyyatda dialekt və şivə terminləri dilin dialekt bölünməsinin vahidi hesab olunur [2, səh.6]. Azərbaycan dialektologiyası dilimizin şivələrini öyrənən dilçilik sahəsidir [2, səh.3]. Şivə dilin dialekt bölünməsinin ən kiçik vahididir. O, bir və ya bir neçə yaşayış məntəqəsi sakinlərinin nitqində meydana çıxır [2, səh.6]. Dilçiliyimizin bir qolunu təşkil edən Azərbaycan dialektologiyası sahəsində də xeyli işlər görülmüş, maraqlı araşdırmalar aparılmışdır [4,səh.14]. Azərbaycan dili dialektlərinin böyük əksəriyyəti vaxtilə tədqiq edilmiş və həmin dialektlərə aid dəyərli əsərlər yazılmışdır [4,səh14]. Azərbaycan dili dialektlərinin təsnifatını M. Şirəliyev tarixi-coğrafi prinsipə əsaslanaraq vermişdir. Həmin təsnifatda dialektlər 4 qrup ətrafında cəmlənir: şərq qrupu, qərb qrupu, şimal qrupu və cənub qrupu [4, səh.16]. Şimal-şərq ləhcəsi Kür çayından şimaldakı ərazinin şimal-şərq hissəsinin Bakı-Şamaxı, Muğan, Quba- Xaçmaz, Dərbənd regionlarının şivələrini əhatə edir. Üç şivə qrupu fərqlənir: 1) Bakı-Şamaxı, 2) Quba- Xaçmaz, 3) Dərbənd [2, səh.34]. Sabirabad şivəsi Şərq qrupuna aid olan Muğan dialektinə daxildir. Azərbaycan Respublikasının əsasən Sabirabad, Abşeron, Bakı, Xızı, Şamaxı, Qobustan, Şirvan, Hacıqabul, Salyan, Saatlı, Neftçala, Kürdəmir, İmişli, Biləsuvar və s. Regionlarını əhatə edən Oğuz-qpıçaq tipli Şərq qrupu dialekt və şivələri müasir Azərbaycan dili ilə müqayisədə bir sıra fonetik, qrammatik, leksik əlamətlərə malikdir. Onları da qeyd edək ki, Sabirabad şivəsinə oxşar olan şivələr İmişli və Salyan rayonlarının şivələridir. Sabirabad şivəsi tədqiqata ehtiyacı olan şivələrimizdəndir.

Azərbaycan dilinin Sabirabad şivəsinin bir sıra özünəməxsus fonetik xüsusiyyətləri vardır.

- Dodaqlanan saitlərin qapalı, dodaqlanan saitlərlə əvəz olunması:

O səsinin u səsi ilə əvəz olunması. Rus dilindən keçən bəzi alınma sözlərdə sözün sonunda müşahidə olunur. Məsələn: vaqun, firqun

Sözün ilk hecasında müşahidə olunanlar da mövcuddur. Məsələn : çuban, qunağ, zuğal, buşqab və s.

- E səsinin ö səsi ilə əvəz olunmasına bir neçə sözdə rast gəlinir. Məsələn: öy, dögür və s.

• N (sağır nun) səsinin işlənməməsi, bəzən bunun diftonqlaşma yaxud uzanmaq ilə müşahidə olunması. Məsələn: nənü:z ; nənö:z – nənəniz/ ato:uz; at:uz – atanız;

• U səsinin o səsi ilə əvəz olunması. Əsasən şimal-şərq ləhcəsinə aiddir. Bu hadisəyə sözün əvvəlində və ortasında müşahidə olunur.

• Sözün ortasında samitin düşməsi ilə birinci saitin uzanması. Məs: qohum- qo:um ; toyuq- to:ux;

• Tərkibində -ağ şəkilçisi olan sözlərin istifadə olunması. Məs: içqırağ;

• Bəzi sözlərdə ə səsinin i səsi ilə əvəz olunması. Əsasən sözlərin birinci hecasında təsadüf olunur. Məs: əncir-incil;

• U səsinin ı səsi ilə əvəz olunması bəzi təkhecalı sözlərdə müşahidə olunur. Məs: pul-pıl ; buz-bız;

• Sonu sız⁴ şəxs sonluğu ilə bitən sözlərdə ı saitinin u və ü dodaqlanan saitləri ilə əvəzlənməsinin baş verməsi. Bu zaman acaq² şəkilçisi s samiti ilə əvəz olunur. Məs: gedəcəksiz? – gedəssüz? ; baxacaqsız-baxassuz;

• Uzun a səsi ərəb və fars mənşəli sözlərdə sözün ortasından və sonundan h səsinin düşməsi nəticəsində əmələ gəlir. Məs: Şabəyim [3, səh.26]

• Uzun a səsi r səsinin düşməsi nəticəsində əmələ gəlir. Məs: [mə:m], [sə:n]. [3, səh.26];

• Uzun o səsi sözün ortasından və sonundan v səsinin düşməsi nəticəsində əmələ gəlir. Məs: [Doğa], [doşan]. [3, səh.28];

• Uzun o səsi nə sual əvəzliyi ilə ol köməkçi felinin birləşməsi nəticəsində əmələ gəlir. Məs: [no:lar], [no:ldi], [no:lsun]. [3, səh.28].

• Şəxs əvəzliklərində birinci və ikinci şəxsin təkində n samitinin düşməsi ilə ilk hecadakı sait yönlük halda işlənərkən uzanır. Məsələn: sənə-[ sə:ə] ; mənə-[mə:ə];

• Söz ortasında y samiti əvəzinə g samitinin fəallığı: dügmə, ignə, igid, sögüd [5].

• Uzun ö səsi sözün ortasından n, h, r səslərinin düşməsi nəticəsində əmələ gəlir. Məs: köhnə [könə], möhkəm [mökəm] [3,26].

• Uzun ü səsi şəkilçidə olan n və v səsinin düşməsi nəticəsində əmələ gəlir. Sözsüz [sözüz], Özsüz [özũz] [3, səh.29].

• O səsinin ı səsi ilə əvəzlənməsi hadisəsi əsasən alınma sözlərə aid olub, damaq ahənginin təsiri nəticəsində əmələ gəlmişdir. Məs: bixça, pamadır, traxdır //traxır, padnıs, telfin, paprıs [3, səh.52].

• Ü səsindən sonra İ səsinin gəlməsi Sabirabad şivəsinə xas xüsusiyyətlərdəndir. Məs: tüsdi, tüki, sütdi, űzzi, düşdi,üzdi, üzir, düşir, düzdi, küsdi, sürdik [3,səh.59].

• Sözlərdə səsartımı hadisəsi Sabirabad şivəsində rast gəlinəm hadisələrdəndir. Məs: İ səsinin artımı: ispirt, isdul, iskan // isgan, istikan [3, səh.64]

• Dialekt və şivələrimizdə söz sonunda saitlərin artımına olduqca az hallarda rast gəlirik. Bu hadisəyə sonor səslərdən sonra təsadüf edilir, məs.: Bekara və s. [3, səh.67].

• Səsdüşümü hadisəsi də ümumiyətlə Muğan dialektində və həmçinin Sabirabad şivəsində rast gəlinən hadisələrdəndir. Çox vaxt sonor səslə bitən ikihecalı sözlərə saitlə başlayan şəkilçi və ya söz əlavə edildikdə, sözün axırıncı qapalı saiti (t, i, u, ü) düşür. Məs.: oğlı, oğli və s. [3, səh.67].

• d səsinin t səsi ilə əvəzlənməsi hadisəsi, demək olar ki, bütün dialekt və şivələrimizdə az və ya çox dərəcədə yayılmışdır. Bu hadisəyə daha çox qərb, şimal ve cənub dialekt və şivələrində, az halda isə şərq dialekt və şivələrində rast gəlmək mümkündür. Məs. Armıt // armut və s. [3, səh.90].

• Bəzi sözlərdə sözün sonundakı k samitinin y samitinə çevrilməsi hadisəsi də Sabirabad şivəsinə aid xüsusiyyətlərdən hesab olunur. Məs.: alay, kürəy, küləy, tozəy, inəy, ördəy, ürəy, yimay, ilmay və s. [3,səh.93].

Sabirabad şivəsinin qrammatik (morfoloji) xüsusiyyətləri.

• Bəzi sözlərin tərkibinə -çı, -çi, -çu, -çü şəkilçisinin artırılması Sabirabad şivəsində rast gəlinən morfoloji hadisədir. Məs.: əhallaçi, aşığçı, becarənçi və s. [3, səh.125].

• Tərkibində -lux, -lğ, -lik, -lig, -lix , -lux, -lük, -lüx` , -dıx, -dığ, -dik, -dig, -dix, -dux, -dük, -düx, -nıx, -nığ, -nik, -nig, -nix`, -nux, -nük, -nüx, -nük`, -riğ, -rik, -rig, -rix,-rux, -ruk,-rùx -Zıx, -zığ, -zik, -zig, -zix, -zux, -zük, -züx` şəkilçili sözlər: Məs:. Arxalığ, illik//illig və s. [3, səh. 124,125].

• Sifətin azaltma dərəcəsində bu şivədə - rax, - rağ şəkilçilərinin izlərini görmək mümkündür: qojarax, yaxşırağ

• Kəsr sayları miqdar saylarına – ın, -ım şəkilçiləri əlavə etməklə düzəlir. Məs: ikinin biri, dördün üçü və s.
• Da ədatı tələffüz zamanı fərqli formalarda deyilir. Məsələn: dana, dayna, dənə
• Bəzi ərazilərdə saylarda o səsinin ı səsi ilə əvəz olunması hadisəsi müşahidə olunur. Məsələn: otuz- otız
• Bu işarə əvəzliyi hallanarkən fərqli şəkildə özünü göstərir. Əsasən burada ilk hecada u>ı əvəzlənməsi baş verir. Məs: Bura- bıranın, bıranı, bırda
• Eyni isim iki dəfə təkrar olunur və bir növ cəmlik bildirir; məs.: Gəlin-gəlin (oyun adi), üzüg-üzüg, top-top, kos-kos, at-at və s. [3, səh.128].
• Sinonimlər isim birləşməsini əmələ gətirir, məs.: dava-dərman, kűnc-bucağ və s. [3, səh.128].
• İsmin hallanması bu şivədə aşağıdakı kimi olur:

Məs.: Araba sözünün hallanmasına baxaq:
A.: araba
Yiy.: arabanın
Yön.: arabıya
Təs.: arabanı
Yer.: arabada
Çıx.: arabadan

Diz sözünün hallanması:
A. Diz
Yiy. Dizün
Yön. Dizə
Təs. dizi
Yer. Dizzə
Çıx. Dizzən [3, səh.148]

• Sabirabad şivəsində birinci şəxsin mənsubiyyət şəkilçiləri əsasən ikivariantlıdır (damaq saitli); məs.: tək: -ım, -im; cəm:-ımız; -imiz. İkinci şəxsin təkinin mənsubiyyət şəkilçiləri ikivariantlıdır (dodaq saitli): -un, -ün.
• Mənsubiyyət şəkilçili isimlərin hallanması bu şivədə aşağıdakı formada olur:

Məs.: Ata sözünün mənsubiyyət şəkilçisi artırılarkən hallanmasına baxaq:

I şəxsdə:
A.Atam
Yiy. Atamın, atamun
Yön. Atama
Təs. Atamı, atami
Yer. Atamda
Çıx. Atamnan

II şəxsdə:
A.Aton
Yiy. Atoun
Yön. Atoạ
Təs. Atoi
Yer. atonda
Çıx. Atonnan [3, səh.154].

III şəxsdə:
A. Öyi
Yiy. Öyinün/ öynin
Yön. Öyinə
Təs. Öini
Yer. Öyində
Çıx. Öyinnən [3, səh.159].

- Şəxs əvəzliklərinin hallanması:

A. Mən
Yiy. Mənim, Məəm
Yön. Mənə, Məə
Təs. Məni, Məi
Yer. Məndə
Çıx. Mənnən [3, səh.181]

- İşarə əvəzliklərinin hallanması:

A. Bı
Yiy. Bıların
Yön. Bılara
Təs. Bıları
Yer. Bılarda
Çıx. Bılardan [3,səh.183].

- Əmr şəklinin Sabirabad şivəsində istifadə olunma şəkli:

Əmr şəklinin Ill şəxsin tək və cəmi -sun, -sün şəkilçiləri ilə ifadə olunur.
Bundan əlavə, dialekt ve şivələrimizdə əmr şəklinin I şəxs cəmi I şəxs
Cəm şəkilçisi ilə II şəxs cəm şəkilçisinin birləşməsindən əmələ gələn -ağun, -əgün, -əyün mürəkkəb şəkilçilərlə də ifadə olunur. [3, səh. 192].

Tək
I ş. Alım
II ş. Al // alginən // alqınan
III ş. Alsun
I ş. Gəlim
II ş. Gəl // gəlginən
IlI ş. Gəlsūn
I ş. Qurım // qurum
II ş. Qur // qurginən
III ş. Qursun
I ş. Üzim, üzüm
II ş. Űz // üzginən
Ill ş. Üzsũn

Cəm
I ş. Alag // alax
II ş. Alun
III ş. Alsun(nar)
I ş. Gələg / gələy
II ş. Gəlün
III ş. Gəlsün(nər)
I ş. Qurağ // qurax
II ş. Qurun
III ş. Qursun(nar)
I ş. Üzəg // üzəy
II ş. Üzün
III ş. Üzsün(nər)

- Şühudi keçmişin təsnifi:

Tək
I ş. aldmm
II ş. aldun
III ş. aldı

I ş. işdədim
II ş. işdədün
III ş. işdədi
I ş. qurdum
II ş. qurdun
III ş. qurdi
I ş.. büridim
II ş Büridün
III ş. Büridi

Cəm
Alduğ // aldig
Alduz
Aldı (lar)
İşdədüg, işdədig
İşdədüz
İşdədi(lər)
Qurduğ.// qurdığ
Qurduz
Qurdı (lar)
Bürüdüg
Bürüdüz
Büridi(lər) [3, səh. 202]

- Nəqli keçmiş zaman

Tək
I ş. Almışam
II ş. Almısan
III ş. Alıb
I ş. İşdəmişem
II ş. İşdəmisən
III ş. İşdiyib // işdib
I ş. Qurmışam
II ş . Qurmısan
Ill s. Qurub // qurıb

Cəm
I ş. Almışuğ
II ş. Almısuz
III ş. Alıb(lar)
I ş. İşdəmişig
II ş. İşdəmisiz
IIIş. İşdiyib // işdib(lər)
I ş. Qurmuşuğ // qurmışuğ
II ş. Qurmusuz // qurmısuz
III ş. Qurub// qurıb, qurıp(lar) [3, səh. 211]

- Sabirabad şivəsində qəti gələcək zamanın şəkilçiləri

Tək
I ş. -acam, -əcəm -acağam, -əcəyəm, -acıyam, -əciyəm
II ş. -acağsan. -əcəgsən, -acasan, -əcəsən
III ş. -acağ, -əcəg
I ş. -acouğ, -əcöụg, -aceyiğ, -aceyig, -acõğ, -acö k,acoğ, -acök,
II ş. -acağsuz, -əcəgsüz, -acasuz, -əcəsüz
III ş. -acağ(lar), -əcəg(lər) [3, səh. 227]

• Sabirabad şivəsində qeyri-qəti gələcək zamanın şəkilçiləri:
Tək
I ş. -aram, -ərəm
II ş. -arsan, -ərsan
III ş. -ar, -ər
Cəm
I ş. -arığ, -ərüg
II ş. -arsuz, -ərsüz
III ş. -allar, -əllər [3, səh. 236]

• İndiki zamanın Sabirabad şivəsində təsviri:
Tək
I ş. alıram
II ş. alırsan
III ş. alır
I ş. İşdiyirəm / işdirəm
II ş. İşdiyirsən l/ işdirsən
Ill ş. İşdiyir//işđir
I ş. Qurıram
II ş. Qurırsan
III ş. Qurır
I ş. bürüyirəm // būriyirəm
II ş. Bürüyirsən // büriyirsən
lll ş. bürüyir / büriyir

Cəm
I ş. alıruğ
II ş. alırsuz
III ş. alıllar
I ş. işdiyirüg // işdirüg
II ş. İşdiyirüz// işdirsüz
III ş. işdiyillər // işdillər
I ş. qurıruğ // qururuğ
II ş. qurırsuz // qurursuz
III ş. qurıllar
I ş. bürüyũrũg // bürüyirüg
II ş. bürüyürsűz //bürüyirsüz
III ş. bürüyüllər // büriyillər [3, səh. 223]

Sabirabad şivəsinin leksik xüsusiyyətləri
Burada Azərbaycan dialektoloji lüğətində qeyd olunmuş sözlərdən istifadə etmək kifayətdir.
Ağımtıl – Ağouş
Başqa, özgə – Alahi [1, səh. 19]
Arıq – Arğaz [1, səh. 25]
Göyçə qarğa – Atquşu [1, səh. 28]
Bir az, bir qədər – Azımcür [1, səh. 31]
Kömək– Ayanat [1, səh.30]
Heyvanın ayaqlarında olan buğum – Bağançanağ [1, səh. 35]
Balkon – Balaxana[1, səh. 37]
Nişan üzüyü – Barmaxçıl [1, səh. 40]
Kiçikli-böyüklü – Cılğalı-böikli [1, səh. 76]
Tamam, tamamilə – Cılxa
Nimdaş – Culaz [1, səh. 81]
Şəkil, surət – Çeşni [1, səh. 92]

Açmaq – Çözələməg [1, səh. 107]
Sırıqlı – Dabi [1, səh. 109]
Tez-tez yerimək – Dabrımağ [1, səh. 109]
Hamı, hamı birdən – Elligharay [1, səh. 150]
Yetim, kimsəsiz – Əncuma [1, səh. 161]
Bilikli, savadlı – Faxra [1, səh. 169]
Payızlıq şum – Güz [1, səh. 191]
Mis səhəng – Gügüm [1, səh. 189]
Bolluq–Hərrəşən [1,səh. 202]
Dovşan balası – Xirnəg [1, səh. 226]
Yenicə doğulmuş heyvanın ilk südündən hazırlanmış yemək – Kələkə [1, səh. 247]
Kiçik arx – Qac [1, səh. 272]
Ağacdələn – Qırmızıdon [1, səh. 302]
Ot topası –Loda [1,səh. 335]
Heç olmasa – Mağıl
Meyvə – Mandağ [1, səh. 334]
Düşüncəsiz – Nağız [1 ,səh. 367]
Kobud – Pezi [1, səh. 397]
Çay pusalı – Pəsab [1, səh. 401]
Ola bilsin ki, bəlkə – Sanrı [1, səh. 419]
Cərgə – Sicər [1,səh. 435]
Kisə – Siyəzi [1, səh. 442]
Qoyunun ilk südündən hazırlanan yemək – Sulux [1, səh. 447]
Vecinə almamaq, dayanıb durmaq – Şinəməg [1, səh. 467]
Kəmər – Təkbənd [1, səh.488]
Çox uzun – Uzunhoqqar [1,səh.522]
Lavaş – Ülüş [1, səh.524]
Çox danışan – Vasvası [1, səh.530]
Yaxın – Yoğmağal [1, səh.550]
Sacayağı- sıpaya [1, səh. 432]
Kef- Sərişdə [1, səh. 431]
Cərgə- Sicər [1, səh. 435]

## NƏTİCƏ

Azərbaycanın şərq qrupunun Muğan dialektinə daxil olan Sabirabad şivəsi fonetik, leksik və qrammatik xüsusiyyətlərlə zəngin, müəyyən söz ehtiyatına sahib olan şivələrimizdən biridir. Bu şivə tədqiqata ehtiyacı olan şivələrdəndir. Tezisdə Sabirabad şivəsinin bir sıra xüsusiyyətləri barədə məlumat verilmişdir. Araşdırma ilə tanış olmaq Sabirabad şivəsinə daxil olan müəyyən sözlərlə tanış olmaq və Sabirabad şivəsinin özünəməxsus xüsusiyyətlərini mənimsəməkdə oxuculara faydalı olacaqdır.

## ƏDƏBİYYAT SİYAHISI

1. Azərbaycan dilinin dialektoloji lüğəti. Bakı, “Şərq-Qərb” nəşriyyatı, 2007
2. Məmmədli M. Azərbaycan Dialektologiyası. Bakı, “Zərdabi nəşr”, 2019
3. Şirəliyev M. ASAP-ın Dialektologiyasının əsasları. Bakı, “Şərq-Qərb” nəşriyyatı, 2008
4. Zabitə Teymurlu.Azərbaycan dilinin dialekt leksikası, Bakı, 2020
5. https://www.azerbaijans.com/content_945_az.html

# KƏMİYYƏT KATEQORİYASININ İFADƏ VASİTƏLƏRİ VƏ ÜSLUBİ İMKANLARI

**MAHMUDOVA MƏTANƏT**
Gəncə Dövlət Universiteti
Filologiya/ Filologiya elmləri
metanet.mahmudova.76@mail.ru
GƏNCƏ, AZƏRBAYCAN

**XÜLASƏ**

Kəmiyyət kareqoriyası digər kateqoriyalardan ifadə vasitəsinin genişliyi ilə fərqlənir. Cəmlik anlayışı həm morfoloji, həm sintaktik yolla, eyni zamanda heç bir qrammatik vasitənin köməyi olmadan da yarana bilir. Morfoloji yolla yaranan kəmiyyət anlayışını yaradan vasitələrdan danışarkən, ilk növbədə, -lar,-lər şəkilçisini qeyd etmək lazımdır ki, bu şəkilçi kəmiyyət anlayışını qrammatik yolla yaradan əsas vasitədir. Kəmiyyət fərqi yaradan bəzi qrammatik şəkilçilər isə əşyanın çoxluğunu birbaşa bildirmir. Dilimizdə işlənən leksik şəkilçilər də kəmiyyət fərqi yarada bilir. Lakin bu şəkilçilər kəmiyyət kateqoriyasının morfoloji göstəricisi kimi norma hüququ qazanmamışdır. Bunların içərisində həm milli, həm də alınma mənşəli şəkilçilər vardır. Sayların kəmiyyət ifadəsində xüsusi mövqeyi vardır. Sayın məna növlərindən asılı olaraq isimlərdə müəyyən və qeyri -müəyyən cəmlik məzmunu sintaktik yolla ifadə olunur. Konkret cəmlik anlayışının yaranmasında yeganə vasitə olan müəyyən miqdar saylarının isimlərlə birgə işlənməsi zamanı artıq cəm şəkilçisinin işlənməsinə ehtiyac hiss olunmur.Əvəzlik və zərfliklər də kəmiyyətin ifadəsində rol oynayır.Məqalədə dilimizdə işlənmə dairəsinin geniş olan kəmiyyət kateqoriyasının qrammatik ifadə vasitələri, kəmiyyətin leksik yolla yaranmasında iştirak edən şəkilçilər haqqında məlumat verilir. Kəmiyyət şəkilçisinin üslubi xüsusiyyətləri araşdırılır. Nəzəri məlumatlar qədim, klassik və müasir mənbələrdən gətirilən nümunələr əsaslandırılır

**SUMMARY**

Means of expression and style opportunities of the quantity category

Quantitative category differs from other categories by the breadth of the means of expression. The concept of plural can be formed both morphologically and syntactically, and at the same time without the help of any grammatical means. When talking about the tools that create the concept of quantity formed by morphological means, first of all, it is necessary to mention the suffix -lar,-ler, which is the main tool that creates the concept of quantity in a grammatical way. Some grammatical suffixes that make a difference in quantity do not directly indicate the plurality of the object. The lexical suffixes used in our language can also create a quantitative difference. However, these suffixes have not gained the right to the norm as a morphological indicator of the quantitative category. Among them, there are both national and derived suffixes. Numbers have a special position in the quantitative expression. Depending on the meaning of the number, definite and indefinite plural content in nouns is expressed syntactically. When working together with nouns, which is the only means of creating the concept of concrete plural, there is no need to use the plural suffix. Pronouns and adverbs also play a role in the expression of quantity. information is provided. The stylistic features of the quantitative suffix are investigated. Theoretical information is based on examples from ancient, classical and modern sources.

**AÇAR SÖZLƏR:kəmiyyət, kateqoriya,leksik, qrammatik, üslubi**
**KEY WORDS: quantity, category, lexical, grammatical, stylistic**

Kəmiyyət kareqoriyası digər kateqoriyalardan ifadə vasitəsinin genişliyi ilə fərqlənir. Cəmlik anlayışı həm morfoloji, həm sintaktik yolla, eyni zamanda heç bir qrammatik vasitənin köməyi olmadan da yarana bilir. Morfoloji yolla yaranan kəmiyyət anlayışını yaradan vasitələrdan danışarkən, ilk növbədə, -lar,-lər şəkilçisini qeyd etmək lazımdır ki, bu şəkilçi kəmiyyət anlayışını qrammatik yolla yaradan əsas vasitədir. Kəmiyyət fərqi yaradan bəzi qrammatik şəkilçilər isə əşyanın çoxluğunu birbaşa bildirmir. M.Hüseynzadə cəmliyin yaranmasında -lar,-lər şəkilçisi ilə yanaşı, həm də -q, -k, -iz4 şəkilçilərinin iştirakını göstərir: “-lar2 şəkilçisi əşyanın çoxluğunu göstərdiyi halda, -q,-k şəkilçisi

ismi xəbərdə əksini tapan əlamətin şəxsə görə çoxluğunu bildirir .-ız4 şəkilçisi isə əvvəlkindən fərqli olaraq yalnız şəxsin çoxluğunu, mənsubiyyət şəkilçisi olarkən birinci və ikinci şəxsin cəmini, xəbərlik kateqoroyası olarkən ikinci şəxsin cəmini ifadə edir" (Hüseynzadə, 2007).

Dilimizdə isim, sifət, say, zərf və feillərə qoşulan şəxs şəkilçisiləri -ıq,-ik, -üq, -ük; -q,-k şəxsin sayının çoxluğunu göstərir. İsimlərə qoşulan -ıq, -ik, -uq, -ük şəkilçisi isimlərin sayını konkret deyil, ümumi şəkildə ifadə edir və qeyri-müəyyən kəmiyyət anlayışı yaradır: biz müəllimik, biz həkimik və s. İsimlərə qoşulan -ız, -iz, -uz, -üz şəkilçisi də cəmlik məzmunu yaradır. Bu şəkilçi həm birinci, həm də ikinci şəxsin cəmində olan mənsubiyyət şəkilçisinin (torpağımız, dilimiz, məqaləniz, sualınız, gülüşünüz və s.), həm də ikinci şəxsin cəmində işlənən şəxs şəkilçisinin (yazıçısınız,müəllimsiniz,ziyalısınız,qulluqçusunuz və s.) tərkib hissəsi olur. Lakin bu, həmin şəkilçinin hər zaman kəmiyyət anyayışı yaratması anlamına gəlmir. Konteksdən asılı olaraq bu məzmun dəyişir. Sizin ananıza bir-bir zəng edib dərsdə iştirak etməməyiniz barədə məlumat verəcəyəm və Qızlar, sizin ananız mənim müəllimim olub cümlələrini müqayisə etsək, birinci cümlədə eyni şəxsə aid mənsubiyyət şəkilçi qəbul etmiş isimlərdən birinin cəmlik məzmunu bildirməsi, ikinci cümlədə isə həmin ismin ikinci şəxsin cəmində olan mənsubiyyət şəkilçisi ilə işlənməsinə baxmayaraq, həmin məzmunu ifadə edə bilməməsi müşahidə olunur. İsimlərə qoşulan -ız, -iz, -uz, -üz şəkilçisinin həm birinci, həm də ikinci şəxsin cəmində yalnız mənsubiyyət şəkilçisinin vasitəçiliyi ilə işlənməsi qrammatik normadır. Bəzi dil faktlarında bu qaydanın pozulması, yəni -ız, -iz, -uz, -üz şəkilçisinin birbaşa sözə qoşulması müşahidə olunur:

Şəkər məhəbbətiz, dadlı diliniz,
Mehman canlar, bizə səfa gəldiniz .(Xətayi, 2004).

Digər qrammatik vasitələrin kəmiyyət məzmunu yaratmasına az təsadüf olunur.Çıxışlıq hal şəkilçisi müəyyən məqamlarda cəmlik məzmunu yaradır: Qutabdan yedim cümləsi ilə Qutab yedim cümləsini müqayisə etdikdə birinci cümlədə obyektin kəmiyyətcə çoxluğu müəyyən olunur. İkinci misalda qutabın sayı bir də ola bilər, amma birinci cümlə haqqında bu fikri söyləmək olmaz.

Dilimizdə işlənən leksik şəkilçilər də kəmiyyət fərqi yarada bilir. Lakin bu şəkilçilər kəmiyyət kateqoriyasının morfoloji göstəricisi kimi norma hüququ qazanmamışdır. Bunların içərisində həm milli, həm də alınma mənşəli şəkilçilər vardır.Milli mənşəli şəkilçilərə adlardan isim yaradan -lıq4 (üzümlük, daşlıq, güllük, kolluq, sözlük, çiçəklik), sifət yaradan -lı4 (pullu, duzlu, güllü, daşlı ), isim yaradan -laq (ovlaq, duzlaq, buzlaq ) morfemlərini misal göstərmək olar.

Alınma mənşəli şəkilçilərdən -xana (kitabxana, hərəmxana, dəlixana) suffiksi qoşulduğu sözlərdə çoxluq məzmunu yaradır. Yer məzmunu yaradan-stan şəkilçisi də eyni funksiyanı yerinə yetirir:

Ey cəmalın gülsitani bağı- minudur mana,
Cənnəti - rizvan ki, derlər, ol səri-kudur mana . (Xətayi,2004)]

Bu şəkilçi dövlət adları yaradan zaman da dolayısı ilə kəmiyyət çoxluğu anlayışı özünü büruzə verir. Belə ki, Gürcüstan, Özbəkistan, Türkmənistan və s. kimi xüsusi isimlər--toponimlər həmin ərazidə gürcü, özbək, türkmənlərin cəm halında yaşadığını bildirir. Az məhsuldar olan -zar şəkilçisinin də kəmiyyət çoxluğu yaratdığını orta əsrə aid ədəbi nümunələrində müşahidə edirik:

Ey Nəsimi, vasil oldun xaliqin rəhmətinə,
Cənnəti-ə`layı buldun, yerni gülzar qıldılar . (Nəsimi, 2004)

Qədim türk abidələrinin dilində miqdar sayından sonra gələn isimlərin cəm şəkilçisi qəbul etməsində müxtəliflik müşahidə edilir: beş sünıüş sünıüşdükdə, beşər yüz yeklər, beşər baqır, beş qutlar, sekiz balıq uluslar və s. (Древнетюркский словарь.1969). Göründüyü kimi, burada qrammatik normanın mövcudluğundan danışmaq doğru olmaz. Bəzi nümunələrdə isə isimlərin təkdə işlənməsinin səbəbini ümumilik yaratmaq yox, qrammatik qaydaların formalaşmaması ilə izah etmək olar: balıqçı avçı tuzçu tuzaqçı ... qılınç qılur tınlığlarığ öldürür -- balıqçı, ovçu, tələ quran qılınc çalır, canlıları öldürür. "Dədə-Qorqud" dastanlarının dilində də fərqli xüsusiyyətləri müşahidə etmək mümkündür. Abidədə miqdar saylarından sonra gələn isimlərin cəm şəkilçisi qəbul etməsi müşahidə olunur: Beş yüz oğuz igidləri şəhid oldu; Qırq nəfər kafərlər atlandı; Əldən qalan bəglər görüşdi; Ol gün cigərində olan ər yigitlər bəlürdi; Ol gün müxənnətlər sapa yer gözətdi. Bəzi hallarda isə canlı məfhumla ifadə olunmuş mübtədanın təkdə işlənərkən xəbərin cəmdə olması müşahidə olunur: Ol qirq namərd dəxi bunı gördilər, ayıtdılar və s .(Kitabi-Dədə Qorqud", 2002). Qeyri-müəyyən sayların isimlərlə işlənməsində müxtəlif mənbələrdə fərqli yanaşmalar var.Orta məktəbin Azərbaycan dili dərsliklərində və abituriyentlər üçün nəzərdə tutulmuş hazırlıq məqsədli vəsaitlərdə çox, çoxlu, onlarla, yüzlərcə

kimi qeyri-müəyyən miqdar saylarından sonra gələn isimlərin cəm şəkilçisini qəbul etməsinə konkret məhdudiyyət qoyulmur, bir çox, bir sıra kimi saylardan sonra gələn isimlərin isə yalnız cəmdə işlənməsi göstərilir. Əslində isə bu saylarda çoxluq anlayışı əks olunduğundan isimlərdə bu məzmunun təkrar verilməsi morfoloji artıqlıqdır və qrammatik normanın pozulması kimi qiymətləndirilməlidir: Zəmanənin sahibləri niyə bu qədər torpaqları alır, ölkələri tutur? cümləsində bu qədər tərkibi sayının işlənməsi cəm şəkilçisinə olan ehtiyacı aradan qaldırmışdır və bu, morfoloji artıqlıq hesab olunmalıdır. B.Xəlilov birinci tərəfi az, çox, xeyli sayları ilə ifadə olunan söz birləşmələrində ikinci tərəfin cəm şəkilçisini qəbul etmədiyini, yəni çox uşaq əvəzinə çox uşaqlar işlətməklə qeyri-müəyyənliyi artırmağın düzgün olmadığını qeyd edir. Sayın iştirakı olmadan belə sözlərin cəmdə işlənməsi isə müəyyən üslubi məqsəd daşıyır. Sıra sayları isə bu kateqoriyaya aid deyil, belə ki, sayın bu məna növü birbaşa kəmiyyət fərqi yaratmadığından təyin etdiyi isimlər cəmdə işlənə bilir və bu, o zaman baş verir ki, əşyaların özü paralel şəkildə mövcud olsun: birinci mərtəbələr, beşinci siniflər və s. Bu xüsusiyyət ədəbi dildə həm qrammatik, həm də üslubi norma hüququ qazanmışdır. gördilər, ayıtdılar.

Cəmlik məzmununun yaranmasında əvəzliklərin rolu vardır. Cümlədə tək saylarla deyil, başqa nitq hissələri ilə ifadə olunan təyinin işlənməsi də cəmlik məzmununun şəkilçinin iştirakı olmadan yaranmasında müəyyən rol oynayır. Bütün günah bizim qızımızdadır cümləsində təyin rolunda çıxış edən əvəzlik kəmiyyət fərqi əmələ gətirir və bu cümlədə mübtədanın cəm şəkilçisi qəbul etməsi morfoloji artıqlıqdan başqa bir şey olmazdı. Qədim türk abidələrinin dilində də bu vəziyyəti müşahidə etmək olar: qamuy kişi tüz erməs.Lakin bunu asılı tərəfi bütün təyini əvəzliyi ilə ifadə olunan birinci növ ismi birləşmələrin hamısına aid etmək olmaz. Qədim və orta əsr ədəbiyyatında bütün əvəzliyinin sinonimi kimi işlənən qamu əvəzliyi də həmin funksiyanı yerinə yetirmişdir: Bəzən də bu əvəzlikdən sönra işlənən sözlərin cəmdə olmasına da eyni dərəcədə təsadüf olunur:

Qamu yerlərə bulundum, qamu sözlərə bilindim,
Qamu pərdədə çalındım, bu ulu bəyana gəldim .(Nəsimi,2004)

Bu şəkilçi dövlət adları yaradan zaman da dolayısı ilə kəmiyyət çoxluğu anlayışı özünü büruzə verir. Belə ki, Gürcüstan, Özbəkistan, Türkmənistan və s. kimi xüsusi isimlər həmin ərazidə yaşayan gürcü, özbək və türklərin çox olduğunu göstərir.

Bütün əvəzliyinin digər tarixi sinonimi olan cümlə əvəzliyi də vaxtı ilə aid olduğu isimlərdə qeyri- müəyyən kəmiyyət məzmunu əmələ gətirmişdir:

Cümlə əşyalər gözin dər xab edəndir gecələr,
Gögdə kövkəblər gözin bidar edər pərvərdigar (Xətayi, 2004).

Şeirdə morfoloji cəhətdən təkdə, mənaca isə topluluq bildirən sözün mübtəda olarkən xəbərin cəmdə işlənməsi müşahidə olunur ki, bu da müasir qrammatik qaydalar baxımından qrammatik normanın pozulması hesab olunur.

Hər təyini əvəzliyi də cümlədəki kəmiyyət məzmununa təsir edir: Hər gecəm oldu kədər, qüssə, fəlakət sənsiz (N.Gəncəvi); Hər oxuyan Molla Pənah olmaz; Bəzəndi hər ağac bir gül ilə, Ağaclar cümlə gülpirahən oldu (Xətayi). Verilmiş cümlələrdə hər təyini əvəzliyi ilə işlənən sözlər müvafiq olaraq gecələrim, oxuyanlar, ağaclar sözləri ilə eyni qrammatik mənanı daşıyır.

Bəzi feillərin də cümlədə iştirakı cəm şəkilçisinə olan ehtiyacı aradan qaldırır. O, qarpızı zirzəmiyə daşıdı cümləsi ilə O, qarpızı yedi cümləsini müqayisə etsək birinci cümlədə daşıdı feilinin göstərilən ismin kəmiyyətcə çox olduğuna işarə oduğunu görərik. Burada cəm şəkilçisinin iştirakı olmadan kəmiyyət çoxluğu özünü göstərir, belə ki, yığmaq, toplamaq, doldurmaq və s. kimi feillər onlarla idarə əlaqəsinə girən sözlərin cəm məzmunu ifadə etməsini təmin edir. Bəzi məqamlarda isə feillərdə qarşılıq - birgəlik məzmunu yaradan -ışq4 (-ş) morfeminin işlənməsi kəmiyyət şəkilçisinə olan ehtiyacı aradan qaldırır. Uşaqlar güldülər cümləsini Uşaqlar gülüşdülər şəklində ifadə etsək, yəni məlum növdə olan feili qarşılıq - birgəlik növdə ifadə etsək, ikiqat cəmlik məzmunu əmələ gələr.

Bəzi hallarda cəm şəkilçisi ilə işlənən zərfliklər də mübtədanın cəmdə olmasını bildirir: Həyət-bacalarda ocaq tüstülənir, mallar haylanıb Kürə tökülür, qız-gəlinlər suya enirdilər (İ.Şıxlı "Dəli Kür"). Göründüyü kimi, tabesiz mürəkkəb cümlənin birinci komponentində yer zərfliyinin cəmdə olması mübtədanın (ocaq) cəmlik məzmunu ifadə etməsinin göstəricisi kimi çıxış edir. Əgər zərfliyi cümlədən kənarlaşdırsaq, həmin məzmun itər: Ocaq tüstülənir. İkinci cümlədə mübtəda ilə uzlaşma əlaqəsi ilə bağlanan tökülür xəbərinin işlənməsi artıq subyektin kəmiyyətcə çox olduğundan xəbər verir. Bu cümlədəki mübtədanı kəmiyyət əlamətinin göstəricisi olmadan da işlətmək olar: Mal

haylanıb Kürə tökülür. Üçüncü cümlədə isə isə subyektin yaxınmənalı sözlərdən yaranmış mürəkkəb söz olması artıq cəmlik məzmununun göstəricisidir ki, kəmiyyət şəkilçisi işlənməsə belə həmun məzmun özünü göstərir: qız-gəlin suya enirdi Ümumiyyətlə, verilən cümlədə bütün cəm şəkilçilərini ixtisar etsək də, göstərilən əlamətlər cəmlik məzmununun qorunmasını təmin edir: Həyət-bacada ocaq tüstülənir, mal haylanıb Kürə tökülür, qız-gəlin suya enirdi.

Göründüyü kimi, kəmiyyət kteqoriyasının həm qrammatik, həm də üslubu imkanları çox zəngindir və bu xüsusiyyətlərin araşdırılması dilimzin inkişafı və qorunması baxımından xüsusi əhəmiyyətə malikdir.

**ƏDƏBİYYAT:**

1.Hüseynzadə, M. (2007). Müasir Azərbaycan dili. Morfologiya .Bakı: Şərq-Qərb, h.3. 279 s.

2.Xətayi.(2004).”Keçmə namərd körpüsündən”. Şeirlər və poemalar. tərt. ed. Ə.Səfərli. Bakı: Yazıçı, 344 s.

3.Kitabi-Dədə Qorqud. (1988).Tərt. ed. F.Zeynalov, S.Əlizadə. Bakı: Yazıçı, 266 s.

4.Nəsimi, İ.(2004).Seçilmiş əsərləri. Tərt. ed. H.Araslı.Bakı: Lider nəşriyyat, Icild.. 336 s.

5.Древнетюркский словарь (1969).Ред. В.М. Наделяев и др. Ленинград: Наука, 676 с.

# FRAZEOLOGİZMLƏRİN TƏSNİFİNƏ DAİR

**NƏCƏFOVA ÜMBÜLBANU**
Bakı Slavyan Universiteti
İxtisas: Azərbaycan dili
Email:necefovabanu2000@gmail.com
Rəyçi:dos.G.İsmixanova

**XÜLASƏ**

Məqalədə Azərbaycan dilçiliyində frazeologiya ilə bağlı məsələlərdən bəhs olunur, frazeoloji vahidlərin təsnifi ilə əlaqədar problemlərə toxunulur. Azərbaycanda frazeologiya XX əsrin ortalarında formalaşsa da, bu günə qədər frazeoloji vahidlərin təsnifi ilə bağlı problemlər aktual olaraq qalır. Bu, əsasən söz quruluşlu frazeologizmlərlə bağlıdır. Cümlə strukturlu frazeoloji vahidlərlə bağlı da fikir ayrılıqları mövcuddur. Elmi dilçilikdə meydana çıxan mübahisəli problem söz şəklində olan, həmçinin cümlə səviyyəli frazeoloji vahidlərlə əlaqədardır.

**AÇAR SÖZLƏR: frazeoloji vahid, dilçilik, dil, təsnifat, prinsip;**

**SUMMARY**

The article deals with issues related to phraseology in Azerbaijan. Problems related to the classification of phraseological units are touched upon. Although phraseology was formed in Azerbaijan in the middle of the 20th century, problems related to the classification of phraseological units remain relevant to this day. This is mainly related to word structure phraseologisms. There are also differences of opinion regarding phraseological units with sentence structure. A controversial problem that manifests itself in scientific linguistics is related to phraseological units in the form of words, as well as at the sentence level.

**KEY WORDS: phraseological unit, linguistics, language, classification, principle;**

**РЕЗЮМЕ**

В статье рассматриваются вопросы, связанные с фразеологией в Азербайджане. Затронуты проблемы, связанные с классификацией фразеологизмов. Хотя фразеология сформировалась в Азербайджане в середине XX века, проблемы, связанные с классификацией фразеологизмов, остаются актуальными и по сей день. В основном это касается фразеологизмов структуры слов. Существуют также разногласия относительно фразеологизмов со структурой предложения.

Спорная проблема, проявляющаяся в научной лингвистике, связана с фразеологизмами как в форме слов, так и на уровне предложения.

**КЛЮЧЕВЫЕ СЛОВА: фразеологизм, лингвистика, язык, классификация, принцип;**

Azərbaycan dilinin frazeologiyası həm frazeoloji vahidləri təşkil edən sözlərin mənaca qovuşma dərəcəsinə, həm də digər xüsusiyyətlərinə görə çox müxtəlif və rəngarəngdir. Bu isə frazeoloji vahidləri bir neçə qrupda təsnif etməyə imkan verir. Hazırda elmi dilçilikdə frazeoloji vahidlərin təsnifatı bir sıra prinsiplərə əsaslanır:

1. Frazeoloji vahidlərin tutumuna görə (əhatə dairəsinə);
2. Frazeoloji vahidlərin əmələgəlmə prinsipinə görə;
3. Frazeoloji vahidlərin semantik quruluşuna görə;
4. Frazeoloji vahidlərin semantik qovuşma prinsipinə görə;
5. Frazeoloji vahidlərin leksik tərkibinə görə;
6. Frazeoloji vahidlərin ekspressiv və üslubi xüsusiyyətlərinə görə tipləri. [5,s75]

Bölgülər arasında sıx əlaqə müşahidə olunur, həmçinin şərti xarakter daşıyır. Frazeoloji vahidlərin tutumuna (əhatə dairəsnə) görə tipləri ilə bağlı qeyd etmək olar ki, əgər dilin müstəqil bir layını təşkil edən frazeologiya dilçiliyin ayrıca bir sahəsidirsə, əhatə dairəsini müəyyənləşdirib dəqiqləşdirmək təbii təsir bağışlayır. Məsələ ilə əlaqədar fikir ayrılıqları da mövcuddur. Bir sıra dilçi alimlər frazeoloji vahidlərə yalnız sabit söz birləşmələri adı altında idiomatik vahidləri (söz birləşmələrini), bəziləri isə həm də cümlə quruluşlu ifadələri daxil edirlər. Bu baxımdan da frazeoloji vahidlərin əhatə dairəsini-tutumunu müəyyən edərkən əvvəlcə onlar struktur cəhətdən təsnif olunmalıdır. Frazeoloji vahidlər həm söz birləşməsi, həm söz, həm də cümlə şəklində olur.

Frazeoloji vahidlərin strukturu ilə əlaqədar müxtəlif bölgülər mövcuddur. H.Həsənov quruluşuna görə frazeologizmləri 2 yerə bölür: a) sadə frazeologizmlər; b) mürəkkəb frazeologizmlər; [3,s.49]

M.Mirzəliyeva isə frazeoloji vahidləri də sözlər kimi, sadə, düzəltmə, mürəkkəb olmaqla 3 yerə bölür. [5,s79] Quruluşca sadə, düzəltmə və mürəkkəb sözlər məcazlaşmaya məruz qalır, söz səviyyəsində meydana çıxır. Dilçilikdə bu fikrin tərəfdarı elə də çoxluq təşkil eləmir. Dil faktları isə bunu söyləməyimizə əsas verir. Məsələn: Siz yaman çalışdınız (sadə); Bu gün uşaq kimi dolmuşdum (sadə); Qız bu hərəkətdən alındı (düzəltmə); Bizi görəndə tutuldu (düzəltmə); Vur-tut iki gün işlədi (mürəkkəb); Onlar bu sözə görə əməlli-başlı utandı (mürəkkəb); Ölüsü üçünü yeyəcək (düzəltmə). Frazeoloji vahidin əsasında məcazlaşma dayanır. Söz səviyyəsində olan frazeoloji vahidlər üçün bu, daha səciyyəvidir. Bu cür sözlərin frazeoloji vahid kimi qəbul edilməsi prosesi kifayət qədər ləng gedir. Fikrimizcə, əksər hallarda frazeoloji vahidlərin mürəkkəb sözlərlə qarışdırılması məhz bununla əlaqədardır. Dildə mövcud mürəkkəb sözlər ilkin dövrdə sərbəst söz birləşmələri şəklində olmuşdur, sonralar məcazlaşmaya məruz qalıb sabitləşmiş, dilin frazeoloji qatından keçib daşlaşmış və dildə mürəkkəb söz kimi formalaşmışdır. Bu gun mürəkkəb söz hesab etdiyimiz ayaqqabı, boyunbağı, ürəyiaçıq, hazırcavab, sual vermək, şən olmaq və s. kimi sözlər əsasında buna əmin olmaq olar. Bu proses, yəni bir sözün və ya söz birləşməsinin məcazi məna kəsb etməsilə dilin frazeoloji qatına daxil olması, həmçinin ilkin mənasını tamam itirərək yeni leksik vahid-mürəkkəb söz kimi formalaşması hazırda da davam edir.

Elmi dilçilikdə birləşmə səviyyəli frazeoloji vahidlərlə bağlı fikir ayrılığı mövcud deyildir. Dilçilərin, demək olar ki, hamısı tərəfindən birləşmə strukturlu frazeoloji vahidlər qəbul edilmişdir. Dilçilər tərəfindən "frazeoloji vahidlərin aid olduqları dilin qrammatik qanunları əsasında meydana gələn, ümumi mənası tərkib hissələrinin təklikdə götürülən mənası ilə düz gəlməyən, məcazi mənalı, sabit tərkibli söz birləşmələrindən ibarət olması" fikri qəbul edilmişdir [6, s.44]. Frazeoloji vahidlər ancaq birləşmə kimi deyil, həm söz, həm də cümlə şəklində mövcuddur. Məsələn: pullu yer, dırnaqarası baxmaq, zəhmətsiz bal yeməzlər, yağlı tikə axtarmaq və s. Bu birləşmələr məcazi mənada işlənərək sabitləşmiş, frazeologizmləşmişdir. Birləşmə şəklində olan frazeoloji vahidlərin sərhədi onun tərkib hissələri ilə məhdudlaşır. Bu komponentlər bəzən cümlədə bir-birinə yaxın yerləşmir, hətta komponentlərin arasına sözlər daxil olur. Məsələn: Ürəyimə o yox, sən yatmısan. Dərdimi kimsə ilə yox, anamla dağıdıram və s. Burada frazeoloji vahid ürəyimə yatmısan, dərdimi dağıdıram komponentləri ilə məhdudlaşır, qalan sözlər kənarda qalır. Buradan aydın olur ki, bir sıra frazeoloji vahidlərin tərkibinə müəyyən söz, yaxud söz qrupu daxil olduqda da onlar bütöv bir vahid kimi çıxış edir. Tərkibə əlavə olunan həmin atributiv xarakterli sözlər əsasən əvəzlik, sifət və ya zərflə ifadə

olunur. Lakin burada atributiv əlaqələr müvəqqəti və əhəmiyyətsizdir. Bu səbəbdən onların tərkibin daxilindən təcrid olunması həm qrammatik, hm də semantik cəhətdən frazeoloji vahidin bütövlüyünü poza bilməz. Səbəb isə aydındır, həmin atributiv sözlər frazeoloji vahidin formalaşmasında iştirak etmir, yalnız semantik cəhətdən qüvvətlənməsinə yardım edir. Bununla məzmunda qətiyyən dəyişiklik baş vermir. Digər dil vahidləri kimi frazeoloji vahidlər də nitqdə müxtəlif sözlərlə qrammatik-semantik əlaqədə olur. Birləşmə səviyyəli frazeoloji vahidlərin müstəqil dil vahidi kimi digər sözlərlə münasibəti leksik və qrammatik birləşmə qanunları əsasında qurulur. Çünki dildə leksik mənası olmayan və qrammatik səciyyə daşımayan frazeoloji vahid yoxdur. Burada tərkib hissələrindən birinin ayrılması mümkün deyildir, başqa sözlə, frazeoloji vahidlərin sintaktik quruluşu daşlaşmış oluğundan ayrılıqda sözə gətirib çıxarar. Əlbəttə, bunun nəticəsində frazeoloji vahid parçalanacaq və yox olacaqdır. Məsələn: Nə vaxt baxırsan, dişini ağardır. Dişini ağardır birləşməsi semantik bütövlüyünü qoruyub saxladığından frazeoloji vahid kimi qəbul edilir. Cümlənin digər üzvləri ilə frazeoloji vahidin ayrı-ayrı komponentləri yox, frazeoloji vahidin özü bütövlükdə əlaqəyə girir. Lakin Səhər və axşam dişini təmizləyib ağardır dedikdə, sözlər arasında bu əlaqə müşahidə olunmur. Müqayisə ifadə edən bu frazeoloji vahidlərin müəyyən qrupunun strukturunda kimi qoşması, həmçinin sanki, elə bil ki sözlərindən istifadə edilir. Məsələn: Elə bil gözüm tutulmuşdu; Dili tutulmuş kimi susurdu; Sanki ağzına su almışdı; Elə bil gözü qaraldı; Elə bil ətini kəsdilər; O səni əlinin içi kimi tanıyır və s. Bu frazeoloji vahidlər frazeologiyanın mühüm zənginləşmə mənbələrindən biridir.

Elmi dilçilikdə frazeoloji vahidlərin təsnifatında ən mübahisəli məsələ cümlə quruluşlu sabit söz birləşmələrinin mövcudluğu ilə əlaqədardır. Atalar sözləri, zərb-məsəllər, hikmətli sözlər, aforizmlərin (bir sözlə, paremiyalar) daxil olduğu bu birləşmələr dildə hazır şəkildə olub, təkrarlanan vahidlərdir, digərlərindən də öz qrammatik quruluşu, semantik və üslubi xüsusiyyətləri ilə seçilir. Eyni zamanda paremiyaların frazeologiyanın obyekti olub-olmaması ilə əlaqədar yekdil fikir yoxdur. Z.Əlizadənin atalar sözü və zərb-məsəlləri frazeologiyanın tədqiqat obyekti hesab etdiyi "Azərbaycan atalar sözlərinin həyatı" adlı əsərində bu barədə ətraflı şərh olunmuşdur, müəllifin qənaəti budur ki, "atalar sözü və zərb-məsəllər yuxarıda qeyd edilən səciyyəvi xüsusiyyətlərinə, özünəməxsusluğuna görə frazeologiyanın bir layını təşkil edir və bu bəhsə də daxil edilməlidir". [2, s.89] Lakin H.Bayramov paremiyaları frazeologiyanın tədqiqat obyekti kimi qəbul edənlərə qarşı çıxırdı: "...atalar sözü və zərb-məsəllərin frazeologiyaya daxil edilməsi heç də sübutlarla əsaslandırılmamışdır" [8,s.39]. A.Qurbanov yazır: "Atalar sözü leksemlər (sözlər) kimi, bu və ya başqa anlayışı deyil, bitkin mühakiməni bildirir, buna baxmayaraq, o, frazeologiyaya daxildir. Atalar sözləri dilin frazeologiyasının ən qədim təbəqəsini təşkil edir. Bunlar dilin lüğət tərkibinin materialı kimi izah olunmalıdır. Atalar sözü eyni zamanda folklorşünaslığın da obyektidir. Orada atalar sözləri başqa cəhətdən tədqiq olunur. Azərbaycan xalqı külli miqdarda atalar sözü və məsəl yaratmışdır. Bu müdrik ifadələrin çoxu ədəbi dilə keçmiş və nitqdə sabit, bütöv birləşmə kimi işlənir" [4, s.380].

H.Bayramov frazeoloji vahidləri üç qrupa ayırmışdır: "Birinci qrupa bir hissəsi ixtisara məruz qalmış, digər hissəsi isə frazeoloji vahidə çevrilərək dil vahidi kimi işlənən atalar sözləri və zərb-məsəllər daxildir… Ikinci qrupa öyüd, nəsihət məzmunu daşıyan atalar sözləri və məsəllər aiddir… Üçüncü qrupa mübtədası buraxılmış yarımçıq cümlədən ibarət olan atalar sözləri və məsəllər daxildir". [1,s.41,45,48] Cümlə strukturlu frazeoloji vahidləri – paremiyaları sintaktik bütöv olaraq qəbul etmiş Z.Əlizadənin "Azərbaycan atalar sözlərinin həyatı" adlı əsərində bu məsələ aydın şərh olunur, onun linqvistik təbiəti araşdırılır, paremiyaların frazeoloji sistemdə xüsusi qat təşkil etməsini əsaslandıran leksik-semantik xüsusiyyətlərə hərtərəfli münasibət bildirilir. [2,s.61]

Frazeoloji vahidlərin əmələgəlməsi ilə bağlı məsələlərdən bəhs edərkən qeyd etməliyik ki, xalqların bir-birləri ilə əlaqələri, sözsüz ki, dillərinə də təsirsiz ötüşməmişdir. Bu mənada Azərbaycan xalqı ilə tarixən yaxın əlaqədə olan xalqlar əsasən ərəblər, farslar və ruslar olmuşdur. Bunu dilimizin fonetik, morfoloji, sintaktik, leksik, həmçinin frazeoloji qatında açıq-aşkar görmək olar. Adətən frazeoloji birləşmələr mənşə cəhətdən aşağıdakı qruplara bölunur:

a) türk mənşəli frazeoloji vahidlər;

b) alınma frazeoloji vahidlər;

c) frazeoloji kalkalar;

Xalqımızın tarixi, etnoqrafiyası, milli adət və ənənələri ilə bağlı formalaşmış sabit söz birləşmələrindəki ritmik-melodik struktur, ahəngdarlıq, alliterasiya və s. üslubi cəhətlər onların məhz türk mənşəli olduqlarına dəlalət edir. Məsələn: göz qoymaq, burnu dik, quyruğu qapı arasında qalmaq,

ayağı kəsilmək. ayaq açmaq, əl tutmaq, qarnını yerə sürtmək, belində gəzdirmək, tükləri biz-biz olmaq və s. Dilimizdəki türk mənşəli frazeoloji vahidlər dilin daxili qanunlarına – qrammatik quruluşuna tabedir. Dilimizdə kifayət qədər ərəb, fars və rus mənşəli frazeoloji vahidlər mövcuddur. Onları alınma sözlərlə qarışdırmaq olmaz. Alınma sözlər hər hansı dildən tam, yaxud da bir qədər dəyişilmiş formada dilə keçirsə, sabit söz birləşmələri mənsub olduqları dillərin yox, tərcümə olunduğu dilin sözləri ilə verilir, bundan sonra da tərcümə vasitəsilə digər dillərə keçə bilir. M.Mirzəliyeva onları belə qruplaşdırır:

1.Tam tərcüməsi verilə bilən frazeoloji vahidlər;

2. Kalkalar [5,87].

Birinci qrupa məxsus frazeoloji vahidlər dilçilikdə az maraq doğurmur. Onlar çox zaman beynəlmiləl səciyyə daşıyır. Beynəlmiləl səciyyəli sabit söz birləşmələri üçün alınmalar ancaq bir vasitədir. Tərcümə vasitəsi ilə müəyyən olunan alınma frazeoloji vahidlərin əsas hissəsi tarix, mifologiya, bədii ədəbiyyat, əksər hallarda isə dini mənbələrlə əlaqədardır. Məsələn: Axillesin dabanı, Sizif əməyi//zəhməti, Platonik sevgi, Demokl qılıncı, Nuhun gəmisi, Ezop gülüşü, Müqəddəs Məryəm, Kral ölmüş, yaşasın (yeni) Kral, ikinci əl, özünü ələ almaq, qoyun cildində qurd, məqbul sayılmaq, sürünü qurda tapşırmaq və s. Bu sıradan olan frazeoloji vahidlərin tərcümə olunduğu dillərin sayı artdıqca, imkan dairəsi artdıqca frazeoloji vahidlər beynəlmiləl xüsusiyyət kəsb edir.

Dildə mövcud frazeoloji kalkalar frazeoloji vahidlərin müəyyən hissəsindən ibarətdir. Məsələn: özünü ələ almaq frazeoloji birləşməsi dilimizə kalka yolu ilə rus dili vasitəsilə alman dilindən keçmişdir. Kalkalar heç də hər zaman dəqiq olmur, başqa sözlə, bəzən qeyri-dəqiq ola bilir. Dilimizdəki frazeoloji kalkaların çox hissəsi rus, ərəb və fars dilləri ilə əlaqədardır. Məsələn: özünü ələ almaq- təmkinli olmaq; uyğun olmayan - yersiz; alimül-üləma - alimlərin alimi // dahilərin dahisi; əhli-qələm - yazıçı, şair; zəmanəmizin qəhrəmanı - əsrin qəhrəmanı, atalar oğullar (problemi), göydələn, ikinci əl və s.

Frazeoloji vahidlərin bir dildən başqa bir dilə tərcüməsi zamanı semantik bütövlük mühüm əhəmiyət kəsb edir. Onlar semantik cəhətdən belə təsnif olunur:

1. Frazeoloji vahidlərdə çoxmənalılıq (polisemiya);
2. Frazeoloji vahidlərdə sinonimlik (sinonimiya);
3. Frazeoloji vahidlərdə variantlılıq (variasiya);
4. Frazeoloji vahidlərdə antonimlik və omonimlik;

S.Cəfərov, sonrakı mərhələdə isə, M.Mirzəliyeva türk dillərində frazeoloji vahidləri semantik bütövlük dərəcəsinə görə belə qovuşmalar, uyuşmalar və birləşmələr olmaqla 3 yerə bölür [5, s.94].

Qovuşmaların tərkib hissələri məcazi mənada çıxış edir, bütövlükdə məcazi məna ifadə edir. Məsələn: oyuna gətirmək, çətinə salmaq, əl qoymaq, daban döymək, çənə döymək, dodaq sallamaq, dəm vurmaq və s. Elmi dilçilikdə sərbəst söz birləşməsindən frazeologizmə keçidin ilk inkişaf dövrünü keçirənlər uyuşma idiomlar hesab edilir. Uyuşmaların tərkibindəki komponentlər həqiqi mənasında çıxış edir. Əgər bu komponentlər digəri ilə əvəz olunarsa, bu zaman frazeoloji variantlılıq yaranacaqdır. Sabit söz birləşmələri mənşəcə sözlər, söz birləşmələri və cümlələrlə əlaqədar olur, başqa sözlə, onlar formalaşma mərhələsində sözlərin, söz birləşmələrinin və cümlələrin məcazlaşma prosesinə məruz qalmış, semantik bütövlük, işlənmə sabitliyi, struktur qapalılığı və yenilənmə əldə etməklə frazeologizmləşmə nəticəsində meydana çıxmışdır.

Nəticə olaraq demək istərdik ki, frazeoloji vahidlərin bir prinsip əsasında təsnifatından söhbət gedə bilməz. Frazeologiya özündə sözlərdən cümləyə qədər dildə hazır vəziyyətdə olan, eyni zamanda qapalı quruluşlu obrazlı ifadələri ehtiva edə bilir. Elmi dilçilikdə özünü büruzə verən mübahisəli problem söz şəklində olan, həmçinin cümlə səviyyəli frazeoloji vahidlərlə əlaqədardır.

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT:**

1. Bayramov, H.A. Azərbaycan dili frazeologiyasının əsasları. B., 1978, 176 s.
2. Əlizadə, Z. Azərbaycan atalar sözlərinin həyatı. Bakı, 1985. 246 s.
3. Həsənov H.Ə.Azərbaycan dilinin frazeologiyası. B., 1979, 96 s.
4. Qurbanov, A.M. Müasir Azərbaycan ədəbi dili. 1-ci cild. B., 2003.
5. Mirzəliyeva M.M. Türk dillərinin frazeologiyası. I c.,B., 2009, 220.
6. Rəhimzadə, N.İ. Azərbaycan dilində idiomatik ifadələr. Nam.dis.,B.,1967.189 s.

# TƏHLÜKƏDƏKİ TÜRK DİLLƏRİ: ÇİNDƏ UYĞUR TÜRKLƏRİNƏ QARŞI APARILAN DİL SİYASƏTİ

**ELÇİN İBRAHİMOV**
Azərbaycan Dillər Universiteti
Türk Dünyası Araşdırmaları Mərkəzi
elchinibrahimov85@mail.ru
Bak/Azərbaycan

**XÜLASƏ**

Çin Xalq Respublikasında (ÇXR) muxtar bölgə sərhədləri içərisində yaşayan uyğur türkləri, Çinin siyasətinə qarşı öz dillərini və mədəniyyətlərini qorumağa çalışmışlar. Mədəni dəyərlərini yaşatmaq adına milli və dini ənənələrini ailə daxilində davam etdirirlər. Uyğur gənclərinin mədəni dəyərlərinə və dillərinə qarşı həssas şəxslər olaraq yetişməsi, dilin gənclər arasında populuyarlığının artırılması, cəmiyyətin əhəmiyyətli təbəqələri tərəfindən dəstəklənməlidir.

Araşdırmamızda ÇXR-nın uyğur türklərinə qarşı yeritdiyi dil siyasətinin tarixindən və bugünkü vəziyyəti haqqında danışmağa çalışacağıq. Bildiyimiz kimi, dil siyasətinin geniş xalq kütlələrinə tətbiq olunduğu ölkələrdən biri Çindir. Çinin ümumi əhalisinin sayı, təxminən 1,4 milyard təşkil edir. Çox millətli bir ölkə olan ÇXR-da hakim millət Xan çinlilərdir. Xan çinlilər ümumi əhalinin 92%-ni təşkil edir. Ölkədə xanlı olmayan 105 milyon insan yaşayır. Çində beş fərqli muxtar bölgə var. Bunlar, Şincan (Şərqi Türküstan), Tibet, Daxili Monqolustan, Ninqxia, Quanqxi muxtar regionlarıdır. Çində etnik qrupların çoxu, öz ana dillərinə sahibdir. Ancaq hui və mancurların danışdıqları dillər artıq ölü dillər hesab olunduğundan, mandarin çincəsini öz ana dilləri olaraq danışırlar.

**AÇAR SÖZLƏR: dil siyasəti, uyğur türkləri, çox millətli, Şərqi Türküstan, təhlükədəki dillər**

## GİRİŞ

Türkoloji araşdırmalarda uyğur türkləri əhəmiyyətli yerə sahibdir. Türk tarixini, dilini, ədəbiyyatını və mədəniyyətini araşdırmaq üçün əvvəlcə ən əski türk yaşayış bölgələrindən biri olan Şərqi Türküstanı və uyğurların dilini, xalq ədəbiyyatını, adət-ənənələrini araşdırmaq lazımdır. Hələ də Çin Xalq Respublikasının ÇXR idarəsi altında olan və ana vətəni Şərqi Türküstanda (Şinjianq Uyğur Muxtar Respublikası) yaşamaqda olan uyğur türkləri, türk boylarından biridir. Uyğur türkləri keçmişdə qurduğu dövlətlərlə, inkişaf edən iqtisadiyyatı, mədəniyyəti, ədəbiyyatı və incəsənət sahələri ilə türk tarixində çox əhəmiyyətli yerə sahibdir. Uyğurların inkişaf etdirdiyi yazı dili və ədəbiyyatı bir çox türk boyunun dillərinə əsaslanan ədəbi dilin, ədəbiyyatının formalaşdırılması və inkişafında əhəmiyyətli rol oynamışdır. "Mədəniyyət və ədəbiyyatları çox zəngin olan uyğurlar, türk dünyasında mədəniyyət, dil və ədəbiyyatının inkişafında böyük rolu olmuşdur" (Emet, 2002).

Professor Əhməd Cəfəroğlu uyğurların Mərkəzi Asiyada (Türküstanda) mədəniyyət istiqamətində oynadıqları rolü belə ifadə etmişdir: "Beşinci əsrdən başlayaraq əvvəllər öz boyları, daha sonra qoşulan digər türk boyları ilə siyasi bir birlik formalaşdıran uyğurların Mərkəzi Asiyada türk dili və mədəniyyətinin inkişafında və yayılmasında çox əhəmiyyətli rol oynamışlar" (Caferoğlu, 1958). Uyğur türkləri çoxəsirlik tarixlərində, öz əməklərinin, ağıllarının, duyğularının və dünyagörüşlərinin bir ifadəsi olaaq ədəbiyyat və sənət dəyəri yüksək əsərlər ortaya qoymuşlar.

Mandarin çincəsi (standart ana dili) Pekin və Çinin şimal dialektləri əsasında formalaşmışdır. Fərqlli etnik qruplar, 200-ə yaxın fərqli dil danışılır. Ancaq bunlardan sadəcə 30 azsaylı xaqların yazı dili vardır. Bu dillərdən 20-ni isə 1000-dən az insan danışır. Burdan belə qənaətə gələ bilərik ki, Çində danışılan azsaylı xalqların dillərinin çoxu təhlükə altındadır. "1956-cı ildə Çində mandarin çincəsinin (polinqua ) ümumi ölkə səviyyəsində götürdükdə milli dil olaraq qəbul edilməsi ilə azsaylı xalqların yaşadığı bölgələrdə bu dilin geniş yayılması təmin edilmişdir. Sürətlə qlobollaşan dünyada Çinin iqtisadiyyatının üstünlüyü və mədəni dəyərlərini ön plana çıxaracaq fəaliyyətlər həyata keçirməsi mandarin çincəsinin daha geniş yayılmasına səbəb olmuşdur" (Bulut, 2017).

Çinin etnik xalqlara qarşı tətbiq etdiyi mədəni, dil və sosial-iqtisadi siyasəti çox qədim tarixlərə, miladdan əvvəlki əsrlərə gedib çıxır. O dövrlərdə belə, fərqli səbəblərlə və hakimiyyətin təsiri ilə yerinə yetirilən siyasətlərdən də müəyyən məqsədlər güdülmüşdür.

Çinin ən qədim yazılı abidələri eramızdan əvvəl 2000-ci illərə gedib çıxır. Bu yazılı abidələrdə, azsaylı xalqlara qarşı tətbiq olunan bəzi siyasətlərdən danışılır. Eramızdan əvvəl 1100-1256-cı illərdə məlum olan ilk çin xanədanı Zhoulardır. O dövrdə, xan çinlilərinin əcdadları, özüləri və barbar dedikləri xalqlar arasında ayrı-seçkilik etmişlər və onlara alçaldıcı, təhqiredici ləqəblər qoymuşlar. O dövrdə Çində konfutsi ideologiyasını yaymaq, eyni zamanda xan dilini və mədəniyyətini, xanlı olmayan azsaylı xalqların qəbul etməsinə çalışmışlar. Bu da dövrün yazılı mətnlərdə qeyd olunmuşdur. Xüsusilə eramızdan əvvəl 206-220-ci illər arasında Çinin şərq və cənubunda olan təsərrüfat hövzələrində, xanlı olmayan topluluqlara, konfutsi təlimlərini yaymaq, bölgədəki nizamı təmin edən qanunların düzgün bir şəkildə tətbiq etmək, yerli qurumlarda çalışanları yetişdirmək, onlara təlim vermək məqsədilə müxtəlif institutlar qurulmuşdur.

1. Uyğur türkləri

Uyğur türkləri VII-VIII əsrlərdə Ötükən bölgəsindən müxtəlif siyasi və iqtisadi səbəblərlə cənuba Turfan, Qansu bölgələrinə enmişlər. Göytürklərdən fərqli olaraq uyğurlar manixeizm və budizm kimi dinləri qəbul etmişlər. Uyğurlar Çin mədəniyyəti səviyyəsinə çatmaq üçün onu təqlid etmək yerinə, uyğur ənənələrinə bağlı uyğur mədəniyyəti əsaslı bir mədəniyyət inşa etmişlər.

1921-ci ildə ÇKP-nın yüksəlməsi və 1949-cu ildə ÇXR-nın qurulması ilə Çindəki azsaylı xalqların statusunda da yeni bir mərhələ başlamış oldu. Bu dövrdə, "azsaylı xalqların dillərinə birbaşa hökümət müdaxilələri olduğu kimi, əl altından gizlicə edilən müdaxilələr də olmuşdur" (Dwayer, 2005).

ÇKP ilk qurulduğu illərdə millət anlayışı ilə məşğul olmuş, bir-birləri ilə bütövləşmiş bir toplumun qurulması üçün axtarışlara başlamışdır. Bu səbəbdən azsaylı xalqların dilləri məsələsi, azlıqlarım yaşadıqlaarı bölgələrdə tək bir millət anlayışını formalaşdırmaq üçün, əhəmiyyətli işlər yerinə yetirmişlər.

Çinin bölgədəki digər etnik ünüsürlərə qarşı həyata keçirdiyi siyasətlər, imperiya zamanından bəri həm uzalaşmalı, həm də assimilyası edici şəkildə iki istiqamətli şəkildə davam etmişdir. ÇXR dövlət rejimi olaraq komunizmlə idarə olunan bir ölkədir. ÇXR-nın qurulduğu ilk illər sosial inkişaf mərhələsinin ilk mərhələsini formalaşdırdığı üçün hökümət dillərin öz təbii inkişafına anlayışla yanaşmış və dəstəkləmişdir. Ancaq daha sonrakı illərdə "tədricən assimilyasiya fəaliyyətləri tətbiq etmiş və ilk mərhlədəki bu müsbət anlayışlar yoxa çıxmışdır" (Burhn, 2008).

2. Uyğur türklərinə qarşı aparılan dil siyasəti

Komunist Çin dövlətinin azsaylı xalqlara qarşı tətbiq etdiyi dil siyasətini əsasən üç hissəyə bölə bilərik;

1. I plüralizm mərhələsi (1949-1957-ci illər),
2. Çin dilinin üstün olduğu mərhələ (1958-1977-ci illər),
3. II plüralizm mərhələsi (1978-ci ildən hal-hazırkı dövrə qədər).

1. I plüralizm mərhələsi (1949-1957-ci illər): ÇXR-nın ilk illərində ÇKP-nın qələbə coşğusu yaşamışdır. Hökümət azsaylı xaqları sosialist inkişafa dəstək vermələri üçün onları cəsarətləndirmək baxımından nəzakətli davranmış, istəklərini yerinə yetirməyə çalışmışdır. Bu dövrdə əsas azsaylı xalqlar beş muxtar bölgəyə ayrılmışdır. Bunlar, Şincan (Şərqi Türküstan), Tibet, Daxili Monqolustan, Ninqxia, Quanqxi muxtar bölgələri idi. İlk dövrlərdə, muxtar bölgələr və Çinin digər bölgələrində azsaylı xalqların həm rəsmi yazışmalarda, həm də sosial sahələrdə öz ana dillərini danışmaqlarına icazə verilmişdir. ÇKP Mərkəzi Komitəsinin məlumatlarına görə, "1956-cı ildə azsaylı xalqların qruplarının öz yerli dillərini istifadə etmələrini, mandarin çincəsinin sadəcə xanlı qrupların istifadə etməsi"(Wang, 2009) qeyd olunur.

Bu dövrdə yazı dili olmayan azsaylı xalqlar yazı sistemini formalaşdırmağa çalışmışlar. Məhkəmələrdə azysalı xalqların dillərini istifadə etmələrinə icazə verilmişdir. Məktəblərdə azsaylı xalqların dillərində təhsil kadrları qurulmuş, radio proqramları hazırlanmış, qəzet və kitablar nəşr olunmuşdur. "Azsaylı xalqların dilləri ilə bağlı çalışmalar başladılmış, dil-yazı sistemi islahatları həyata keçirmiş, dillərin qrammatika kitabları yazılmışdır" (Bruhn, 2008).

Bu dövrün sonlarına yaxın, Çində böyük ölçüdə iqtisadi inkişaf planları hazırlanmışdır. Böyük inkişaf hərəkatı layihəsi uğursuzluql nəticələnmiş, Çində hakimiyyət tək bir insanın əlinə (ixtiyarına-inhisarına) keçməsinə səbəb olmuşdur. Bu azsaylı xalqlara qarşı tətbiq olunan mülayim (yumşaq) siyasətin sona çatması demək idi.

2. Çin dilinin üstün olduğu mərhələ (1958-1977-ci illər): 1950-ci illərin sonlarında, 1960-cı illərin əvvəllərində mədəniyyət inqilabı baş vermiş, azsaylı xalqlara qarşı tətbiq olunan dil siyasətində də dəyişikliklər baş vermişdir. Bu dövrdə mandarin çincəsi, azsaylı xalqların yaşadığı bölgələrdə tək tədris dili olaraq qəbul edilmişdir.

Böyük inkişaf hərəkatının uğursuzluqla nəticələnməsi, ölkədə istehsalın zəifləməsinə və aclığa səbəb olmuş, azsaylı xalqlara qarşı təbiq edilən mülayim siyasət bunun sayəsində dayanmışdır. Ancaq bu uğursuzluğa baxmayaraq "Mao Zedonq gücündən gücündən bir şey itirməmişdir" (Bruhn, 2008).

Belə bir şəraitdə, azsaylı xalqlara qarşı Çinin ilk dövrlərdə tətbiq etdiyi mülayim siyasətin yerini təzyiqçi, totalitar bir rejimin siyasəti almışdır. Mədəniyyət İnqilabında dillərin tək bir xəlqədə birləşdirilməsi üçün bəzi cəhdlər göstərilmişdir. Bundan başqa etnik qrupların ənənəvi (milli) geyimləri qadağan edilmişdir. Yerli mədəni fəaliyyətlər də qadağan edilmişdi.

Çin dilinin tək bir dil olaraq ölkə səviyyəsində keçərli olması üçün ilk addım "Çin dilinin fonetik imlası üçün bir plan" adlı fəaliyyət proqrmı hazırlanmışdır. Bu proqramda mandarin çincəsini latınlaşdırma sistemi qurmağa çalışmışlar. Bunu sayəsində bütün azsaylı xalqların dillərinin əlifbaları latın əsaslı əlifba sisteminə keçirilməyə çalışılmışdır. Bütün bunlar çin dilinin öyrənilməsini asanlaşdırmaq, azsaylı xalqların dillərinə çin dilindən sözlər daxil etmək üçün edilmişdir. Çin hökuməti dil fərqliliklərini, Çinin qarşısında bir maneə olaraq görməyə başlamış, bu fəaliyyətlərini artıraraq davam etmişdir. Çində olan azsaylı xalqlara sosial-iqtisadi cəhətdən də çin dilini bilmək əsas şərt kimi tələb olunmuş, dövlət və digər işlərdə çalışmaları üçün çin dilini bilmələri tələb olunmuşdur.

Bu dövrdə tətbiq olunan dil siyasəti nəticəsində xalqların dilini öyrənmək üçün ciddi bir tələb meydana gəlmişdir. Yekun olaraq bu dövrdə (mərhələdə) mədəniyyət inqilabı ilə birlikdə sinfi ayrılıqları ortadan qaldırma bəhanəsi ilə azsaylı xalqların dillərinə assimilyasiya siyasəti tətbiq olunmuş, 1970-c illərdə bəzi bölgə iclaslarında konstitutisyadakı maddələr pozulmuş və millilik Çin hökümətinin inhisarında qadağan edilmişdir.

3. II plüralizm mərhələsi (1978-ci ildən hal-hazırkı dövrə qədər): 1970-ci illərin sonu, mədəniyyət inqilabından sonra mülayim siyasətin yaşandığı bir dövr olmuşdur. 1970-ci illərin sonu, 1980-ci illərin əvvəllərində siyasi arenada beynəlxalq əlaqələrə üstünlük verilən bir dövr olmuşdur.

Çin hökuməti azsaylı xalqları mühafizə etmək məqsədilə bəzi qanunlar qəbul etmişdi. 1982-ci ildə yeni bir konstitutisiya hazırlayan dövlət, konstitutisiyada mulltikultural dəyərlərin qorunması və azsaylı xalqlara hörmətlə yanaşılması ilə bağlı maddələr yer verilmişdir. Həmçinin ÇXR-da yaşayan millətlərin bərabərhüquqlu olması qanunlarda əksini tapmışdır.

"ÇXR-da yaşayab bütün xalqlar bərabərdir. Hər hansı bir xalqa qarşı tətbiq olunacaq təzyiq və ya ayrı-seçkilik (qanunvericilikdə) qadağan edilmişdir. Regional muxtariyyatlarda, azsaylı xalqlar arasındakı əlaqəni gücləndirmək üçün tədbirlər planı hazırlanır. Bu regionlarda qurulan hökümət orqanları muxtariyyat qanunları tətbiq edilir. Bütün milli muxtariyat bölgələri, öz danışıq və yazı dillərini inkişaf etdirmə, istifadə və öz ənənələrini yaşatma və ya qoruma azadlığına sahibdirlər" (World Uyghur Congress-2014).

ÇXR "Azsaylı xalqlar üçün regional muxtariyyat qanunları" 31 may 1984-cü ilə qəbul olunmuşdur. Bu qanunda yer alan 6 amddə ilə azsaylıların hüquqları və dilləri qanunlarla təmin edilirdi. Ancaq mandarin çin dili, Çində yaşayan bütün xalqlar üçün demək olar ki, öyrənmək məcburiyyəti də qanunda əks olunmuşdur. Belə ki, "Regional Muxtariyyat Qanunlarının" 37-ci maddəsinə "xan çin dilinin təhsildə istifadə olunması tələb olunur, bundan başqa azsaylı xalqların dillərinin də istifadə olunması da vurğulanır" (Закон КНР).

Regional Muxtariyyat Qanunlarının 37-ci maddəsində qeyd olunanlar uyğur türklərinin 2014-cü ildə Parisdə keçirlən "Dünya uyğurlarının konqresində" də dilə gətirilmişdir.

Dövlət Təhsil Araşdırma Mərkəzinin (DTAM) Qərbi Çinin düzənlik ərazilərində 2003-cü ildə aparılmış anket sorğusuna görö, bu regionlardakı məktəblərin əsas ehtiyaclarından məhrum olması, həmçinin məktəblərin 37,8%-də partaların olmaması, 22,3%-də siniflərin riskli olması (qəzalı halda olması), 32,5%-də isə məktəblərdə dəftərxana ləvazimatlarının olmaması müşahidə edilmişdir.

Həmçinin "regiondakı yoxsulluq dərəcəsinin yüksək olması, ikidildə dərslər tədris edəcək müəllimlər tapmağı da çətinləşdirmişdir" (Wang, 2008).

1986-cı ildə çıxarılan "Muxariyyat Bölgə Qanunları" ilə ölkədə 9 illik icbari təhsil, yerli hökümətlər tərəfindən qəbul edilmişdir. Ancaq bu 9 illik icbari təhsil, həm yerli, həm də mərkəzi hökümətlərə tələb olunan maddi dəstək göstərilməməsindən dolayı tətbiq olunmamışdır.

Uyğur türkləri bölgənnin ən çox və köklü etnik qruplarından biridir. 1949-cu ildə uyğurların yaşdıqları bölgə olan Şərqi Türküstan Çinin hakimiyyəti altına düşmüşdür. 1957-ci ildə isə bölgəyə muxtariyyat statusu verilmişdir. Şərqi Türküstan Muxtara Respublikasında yaşayan uyğurların rəsmi rəqəmlərə görə əhalisi 10,6 milyon olmuşdur. 2010-cu ildə əhali siyahıyalınmasına görə isə Şərqi Türküstan bölgəsinin ümumi əhalisinin sayı 21,8 milyon olmuşdur. Bu rəqəmlərə görə uyğur türkləri bölgə əhalisinin 43%-ni təşkil edir. "Xan çinlilərin isə Şərqi Türküstandakı bölgə əhalisinə göstəriciləri 6% olduğu halda, bu say 2010-cu ildə 41%-ə yüksəlmişdir" (İbrahimov, 2023).

Ölkə səviyyəsində götürüldükdə xanlı çinlilərin sayının artması, dil siyasətinin uyğur türklərinin əleyhində davam etməsinə və uyğur türklərinin öz torpaqlarında 20 il sonra azsaylı xalq mövqeyinə düşməsinə səbəb olacaqdır (artıq azsaylı xalqlar statusundadırlar).

Komunizmin ilk dövrlərində uyğur bölgəsində ikidilli təhsil sistemi tətbiq olunurdu. 1959-cu ildən isə Şərqi Türküstan hökuməti, ali təhsil qurumlarında çin dilində hazırlıq sinifi oxumaq məcburiyyəti tətbiq olunmağa başlanmışdır. 1966-cı ildə başladılan mədəniyyət inqilabı nəticəsində ikidilli tədris sistemi ləğv olunmuş və tədris dili çin dilində olmuşdur. 1966-cı ilə qədər uyğur türkləri ərəb əlifbası əsasında uyğur əlifbasını istifa etmiş, 1966-cı ildən sonra bir müddət latın əlifbası istifadə edilmişdir. Maonun ölümü və 1970-ci illərdə Çinin beynəlxalq əlaqələrə üstünlük verdiyi bir dövrdə assimilyasiya fəaliyyətləri başqa bir məcrəya çevrilmişdir. Azsaylı xalqların dilləri qanunlarla təminat altına alınmalrına baxmayaraq, qanunlarda qeyd olunan fəaliyyətlər iqtisadi yetərsizliklərdən dolayı tətbiq olunmamışdır.

Regional muxtariyyat qanunları ilə uyğur türklərinin hüquqları qanuni olaraq qorunmuş ancaq bu fəaliyyətlər kağız üzərində qalmışdır.

"Muxtariyyat bölgələrdəki etnik xalqlar, öz azadlıqlarını təmin edirlər. Öz danışıq və yazı dillərini inkişaf etdirməklə bağlı və adət-ənənələrini yaşatmaq və ya mühafizə etmək sərbəstliyi verir" (World Uyghur Congress-2014).

Uyğur türkləri üçün 1990-cı il bir dönüş nöqtəsi oldu. Sovet rejiminin sona çatması və 1991-ci ildə türk respublikalarının qurulması ilə Şərqi Türküstan, Çin hökuməti üçün diqqət mərkəzinə çevrilmiş və burdakı tədbirlərini artırmasına səbəb olmuşdur. "Çinin qərbə açılan qapısı olan Şərqi Türküstan torpaqlarının məhsuldarlığı, qərbdən gələcək təhdidlər üçün tampon bölgə vəzifəsini yerinə yetirməsi baxımından çox əhəmiyyətli bir strateji mövqedə yer alır" (Dağcı, 2013).

Çin hökuməti bölgəni əlində saxlamaq üçün bölgənin etnik quruluşuna müdaxilə edərək ciddi köç hərəkətlərini yerinə yetirmişdir. Hazırda Uyğur Muxtar bölgəsində verilən təhsilə nəzər salsaq sadəcə "sosial elmlərin uyğur dili ilə tədris olunduğunu, siyasi və pedoqoji fənlərin milli çin dilində (mandarin çincəsi ilə) yerinə yetirildiyini görə bilərik" (Emet, 2008). Dünya Uyğur Konqresindəki məlumatlara görə Şərqi Türküstanda hal-hazırda 3 məktəb var. Bunlar xan məktəbləri, etnik məktəblər və qarışıq məktəblər. Xan məktəblərində daha çox xanlı şagirdlər təhisl alır, təhsil xanlı müəllimlər tərəfindən milli dildə tədris olunur. Etnik məktəblərdə yanlız milli azlıqlar təhsil alır, tədrisin dili müəyyəm dərslərdə (misal üçün uyğur ədəbiyyatı) azsaylı xalqlarından dilində, digər dərslər milli dildə (mandarin çincəsi ilə) tədris olunur. Qarışıq məktəblərdə həm xanlı şagirdlər, həm də azsaylı şagirdləri bir yerdə təhsil alır. "Bu məktəblərdə dərslər mandarin çincəsi ilə tədris olunur" (İbrahimov, 2020). Belə qənaətə gələ bilərik ki, muxtariyyat bölgələrində ikidilli tədris bir seçim kimi görsənməsinə baxmayaraq, bu bölgələrdə örtülü bir şəkildə təkdilli tədris siyasəti tətbiq olunur.

2002-ci ildə Xinjianq Regional Təhsil Bürosu yeni ikidilli təhsil siyasəti haqda məlumat vermişdir. Buna görə mandarin çincəsi ibtidai, orta və ali məktəblərdə ana dili olaraq tədris olunacaqdır. 2002-ci ildə Şincan Universiteti tədris dilinin artıq uyğur dili olmadığını, tədrisin mandarin çincəsi ilə aparıldığını elan etmişdir (azsaylı xalqların ədəbiyyat dərsləri istisna olmaqla). Təkdilli univeristet təhisl qanununda sonra xan dilini bilmək həm yeni, həm də mərhələli şəkildə müəllimlər üçün zərurətə çevrilmişdir. Bu da bir çox uyğur müəlliminin (Çin dilində minimum imthanalarından keçməyənləri) işdən ayırlmasına ya da pensiyaya çıxmasına səbəb olmuşdur. Məhz

buna görə də, "2010-2011-ci illərdə Şərqi Türküstanda ən az 1000 müəllim mandarin çincəsi testlərindən keçə bilmədikləri üçün işlərindən azad olunmuşlar" (İbrahimov, 2023a).

Minimum imtahanlarını uyğur müəllimlərinin təhsil sistemindən uzaqlaşması üçün tək yol olmamışdır. Çox uyğur müəllimi, çin hökümətinin sözdə ikidilli tədrisinə məmnuniyyətsizliklərini dilə gətirdikləri üçün həps olunmuşlar.

"Mandarin çincəsinin dövlətin bütün mərhələlərində məcburi olması, bölgədəki etnik ünsürlər üçün bu dili prestijli bir vəziyyətə gətirib çıxarmışdır. Şərqi Türküstandakı bütün universitetlərdə şimal çin dialektində ali dərəcəli bir yetərlilik almaq məcburiyyətə çevrilmiş, bu məmcburiyyət dövlət qurumlarında çalışmaq istəyənlər üçün isə qaçılmaz olmuşdur" (Karaca, 2007). Ali dövlət qurumlarına gətirilən xanlı çinlilərin qurum yazışmalarında çin dilinə üstünlük vermələri, gənc əhalinin eynilə digər bölgələrdə olduğu kimi iş imkanları səbəbi ilə çin dilini öyrənməsinə səbəb olmuşdur.

**NƏTİCƏ**

Yekun olaraq deyə bilərik ki, dünyanın ən çox əhali yaşayan ölkəsi olan Çinin tarixdən günümüzə fərqli etnik qruplara qarşı tətbiq etdiyi dil və mədəniyyət siyasəti, qurucu olmaqdan ziyadə, etnik ünsürləri yoxedici bir zəmində davam edir. Xanlı çinlilər tarixin ən qədim dövrlərindən günümüzə, xanlı olmayan xalqlara qarşı yürütdükləri siyasətdə dil təsirli bir vasitə olmuşdur. İlk vaxtlar konfutsi din təlimlərini yaymaq üçün öz dillərini tətbiq etmək xanlı çinlilər, yaxın əsrlərdə qanunlarla azsaylı xalqları mühafizə etdiklərini söyləsələr də tətbiq edilən siyasətlər tamam başqa şəkildə olmuşdur. Bununla bağlı dövlətin azsaylı xalqların hüquqlarını və dillərini qorumaqla bağlı daha qalıcı və təsirli addımlar atmasını tələb edirdi. Xüsusilə tədrisdə azsaylı xalqların dillərinə yer verilməsi, şagirdlərin ana dillərində təhsil almaları, mədəni dəyərlərinin öyrədilməsi gənclərin milli kimliklərini davam etdirmələri baxımından əhəmiyyətli olmuşdur. Həmçinin regionlar arası təhsil şərtlərinin bərabər olmasının təmin edilməsi, ixtisaslı müəllimlərin, azsaylı xalqların mədəniyyətinə hakim və fərqli mədəniyyətlərə sayğılı olması, ixtisaslı fərdlərin yetişməsinə şərait hazırlayacaqdır.

ÇXR qurulduqdan sonra, tətbiq edilən dil siyasətini üç mərhələdə nəzərdən keçirdik. Çinin tərkibində olan fərqli etnik qrupların danışdığı 200-ə yaxın dilin öz təbiii inkişafına icazə verilməsini müəyyən etmişdir. Bu səbəbdən bundan 50 il sonra 50 il sonra bu dillərin sayının yarıya düşəcəyini təxmin edilir. Bu prosesin qarşısını almaq üçün başda Birləşmiş Millətlər (BM) olmaq üzərə, beynəlxalq təşkilat və quruluşların ictamiyyətdə ölmək üzərə olan dillərə diqqət etmələri, hökümətlərə bu dillərin mühafizəsi ilə bağlı göstərişlər vermişlər.

ÇXR-da muxtar bölgə sərhədləri içərisində yaşayan uyğur türkləri, çinin siyasətinə qarşı öz dillərini və mədəniyyətlərini qorumağa çalışmışlar. Mədəni dəyərlərini yaşatmaq adına milli və dini ənənələrini ailə daxilində davam etdirirlər. Uyğur gənclərinin mədəni dəyərlərinə və dillərinə qarşı həssas şəxslər olaraq yetişməsi, dilin gənclər arasında populuyarlığının artırılması, cəmiyyətin əhəmiyyətli təbəqələri tərəfindən dəstəklənməlidir.

Bu gün ÇKP-nın uygurlara qarşı tətbiq etdiyi digər bir qadağa isə uyğur müəllimlərinin və şagirdlərinin öz dillərindən istifadə etmələrini qadağan edib. Şincanda bütün uyğur dilində kitabları və qəzetləri qadağan edərək xalq öz dili unudulmağa çalışılır. 2019-cu ildə Şincanın paytaxtı Urumçidə bir ibtidai məktəbdə çalışan 28 uyğur müəllim, öz dillərində yazdıqları üçün vəzifələrindən azad edilmiş və çinli müəllimlərin qaldığı yurdları qorumaq, ideologiyanı öyrənmək kimi vəzifələr tətbiq edilmişdi (məcburi şəkildə).

Çin hökümət tərəfindən uyğur dilinin istifadəsi qadağan edildiyi üçün məktəblərdə sadəcə mandarin çin dilində təhsil verilməsi qərara alınmışdır. Xoton şəhərindəki Təhsil Bürosu, Şincandakı bütün məktəblərdə, ibtidai və orta məktəblərdə tədrisin sadəcə mandarin dilində aparılmasına əmr edir.

**ƏDƏBİYYAT SİYAHISI**

1. Bruhn, D. (2008). Minority Language Policy in China, with Observations on the She Ethnic Group. Linguistics 250E – Endangered Languages.

2. Caferoğlu, Ahmet. (1958). Türk Dili Tarihi, C. 1, İstanbul.

3. Dağcı, K., Keskin, M. (2013). Çin'in Doğu Türkistan Politikası ve Azınlık Hakları Bağlamında Hak İhlalleri. Barış Araştırmaları ve Çatışma Çözümleri Dergisi.

4. Dwyer, A. M. (2005). The Xinjiang Conflict: Uyghur Identity, Language Policy, and Political Discourse. East-West Center, Washington.

5. Emet, E. (2008). Çin'in Çift Dilli Eğitim Adı Altında Uygur Türkçesini Yok Etme Politikası. KÖKSAV E-Bülten, Ankara.

6. Gülşah, Bulut. (2017). Çin'de Uygulanan Dil Politikaları ve Uygur Türklerinin Durumu, International Journal of Language Academy, Volume 5/1 Spring.

7. İbrahimov, E. (2023a). Language Policy in Turkic States and Societies Historical Aspect. Selçuk Türkiyat. (60): 327-352. Doi: 10.21563/sutad.1405537

8. İbrahimov, E. (2023). Müasir Türk toplumlarında dil siyasəti (Gürcüstanda Türk dili ilə bağlı aparılan dil siyasəti). Uluslararası Türkçe Edebiyat Kültür Eğitim Dergisi, 12(2), 473-481, Doi: 10.30563/turklad.1318704

9. İbrahimov. E. (2020). Rusiya Federasiyasının azsaylı türk xalqlarına qarşı dil siyasəti. Uluslararası Türk Lehçe Araştırmaları Dergisi (TÜRKLAD). 4. Cilt. 2. Sayı. s. 206-222.

10. Karaca, R. K. (2007). Türkiye-Çin Halk Cumhuriyeti İlişkilerinde Doğu Türkistan Sorunu. Akademik Barış Dergisi.

11. Wang, Y., Phillion J. (2009). Minority Language Policy and Practice in China: The Need for Multicultural Education. International Journal of Multicultural Education, Vol. 11, No. 1.

12. World Uyghur Congress (2014). Uyghur Mother Tongue Rights In East Turkestan (China). Centre de Conferences Capital 8, Paris, 2014, p.12, https://www.uyghurcongress.org/en/conference-announcement-uyghur-mother-tongue-rights-in-china-perspectives-challenges-and-policy/, (24.04.2020)

13. Закон КНР «О национально-территориальной автономии», 31 мая 1984 г. был принят (Китайский информационный Интернет-центр.China.org.cn), http://russian.china.org.cn/russian/166260.htm, (25.04.2020)

Elchin Ibrahimov

ENDANGERED TURKIC LANGUAGES: LANGUAGE POLICY AGAINST THE UIGUR TURC IN CHINA

**SUMMARY**

In the People's Republic of China (PRC), Uyghur Turks living within the borders of the autonomous region have tried to protect their language and culture against Chinese policy. They continue their national and religious traditions within the family in order to preserve their cultural values. The development of Uyghur youth as sensitive to cultural values and languages, increasing the popularity of the language among young people, should be supported by important sections of society.

In our research, we will try to talk about the history of the language policy of the PRC against the Uighur Turks and the current situation. As we know, China is one of the countries where language policy is applied to the general public. The total population of China is about 1.4 billion. The ruling nation in China, a multi-ethnic country, is the Chinese. The Han Chinese make up 92% of the total population. There are 105 million non-khans in the country. There are five different autonomous regions in China. These are Xinjiang (East Turkestan), Tibet, Inner Mongolia, Ningxia, Guangxi Autonomous Region. In China, most ethnic groups have their own mother tongues. However, since the Hui and Manchu languages are now considered dead languages, they speak Mandarin Chinese as their mother tongue.

**KEYWORDS: language policy, Uighur Turks, multi-nationality, Eastern Turkestan, endangered languages.**

# QARABAĞ BÖLGƏSİNDƏ MİKROORONİMLƏR

**Ayşən İsmayıllı**
AMEA Nəsimi adına Dilçilik İnstitutu
doktorant, kiçik elmi işçi
aysheaxmedova4@gmail.com, 070-815-36-16
Bakı, Azərbaycan

**XÜLASƏ**

Dilin toponimik leksikası mürəkkəb quruluşa malikdir. Dildə olan xüsusi adların məcmusu toponimik leksikanı təşkil edir. Mikrotoponimlər sisteminin xarakterik cəhəti vardır. Kəndlərdə, şəhərlərdə elə mikrotoponimlər vardır ki, xalqımızın dilində və yaddaşında illərlə yaşayır. Oronimlər insanla təbiətin əlaqəsinin nəticəsi kimi özünü göstərir. Yunanca oros - dağ, onim - ad sözlərinin birləşməsindən yaranmışdır. Bu toponimik vahidlərin araşdırılması nəticəsində aydın olur ki, onimlər müxtəlif dildə danışan xalqların, tayfaların adları, toponimlərlə, saylarla, xarici görünüş və rəng bildirən sözlərlə, baş verən hadisəyə görə adlandırılan adlarla bağlı olaraq yarana bilər. Belə nomenlər müxtəlif dövrlərin məhsulu kimi özünü göstərir.

Belə ki oronimlərin tədqiqi müasir dövrə qədər gəlib çıxmış və mikrotoponimlərin daxilində mühafizə olunan arxaik dil elementlərinin müəyyən olunması üçün əsas mənbə olduğunu bir daha təsdiq edir. Coğrafi adların öyrənilməsi spesifik xüsusiyyətlərin aşkarlanmasına da yardımçı olur. Mikroobyekt adları dəyişikliyə məruz qala bilir və daha çox milli mənşəlidir. Qarabağ bölgəsində qeydə alınmış oronimlər növünə görə müxtəlifdir. Bu nomenlərə (kiçik dağ, dərə, təpə, çöl, düz, düzən, düzənlik, dik, dikdir, pəyə, eniş, yoxuş, yamac, yal, kolavat, qəbir, qəbiristanlıq, mağara, gədik, yol, aşırım, küdri, ocaq, pir, türbə, məscid, ziyarətgah, yer, taxta, zəmi, zirvə, köbər, kaha, xarabalıq, bağ, tap, məhəllə, dəhnə, keçid, körpü, yurd, daş, döş, yaylaq, qışlaq, bazı, çuxur, bostan, cığır, qala, oyuq, qoruq, kalafa, yataq, quyu, kövşən, yarğan, tala, sahə, silsilə, ərazi, arxac, yüksəklik və s.) və s. aiddir.

**AÇAR SÖZLƏR: Qarabağ, bölgə, mikrotoponim, oronim, spesifik**

**ABSTRACT**

The toponymic lexicon of the language has a complex structure. Toponymic lexicon is a set of special names in the language. The system of microtoponyms has a characteristic feature. There are such microtoponyms in villages and cities that live in the language and memory of our people for years. Oronyms appear as a result of the relationship between man and nature. It was formed from the combination of the Greek words oros- mountain and onim- name. As a result of the examination of these toponymic units, it is clear that onims can be formed in connection with the names of peoples and tribes speaking different languages, toponyms, numbers, words denoting appearance and color, and names named according to the happening event. Such names appear as products of different periods.

Thus, the study of oronyms once again confirms that it is the main source for the identification of archaic language elements preserved within microtoponyms that have come to modern times. Studying geographical names also helps to identify specific features. Microobject names are subject to change and are mostly of national origin. Oronyms recorded in the Karabakh region are different according to their type. These nouns (small mountain, valley, hill, desert, flat, plain, plain, steep, steep, slope, descent, slope, slope, yal, kolavat, grave, cemetery, cave, path, road, pass, kudri, hearth, pir, tomb, mosque, sanctuary, place, wood, ground, top, hillock, kaha, ruin, garden, tap, quarter, corner, passage, bridge, home, stone, breast, meadow, winter, some, pit, melon, path, castle, hollow, reserve, culvert, bed, well, corner, gully, tala, field, ridge, area, arch, height, etc.) etc. belongs to.

**KEYWORDS: Karabakh, region, microtoponym, oronym, specific**

## GİRİŞ

Toponimist dilçilərimizdən A.Qurbanov, S.M.Mollazadə, T.Əhmədova, Q.Məşədiyev, B.Budaqov, N.Məmmədova, V.İsrafilov, İ.Bayramov və başqaları oronimlərlə əlaqədar olaraq öz fikirlərini bildirmişlər və müəyyən təsnifatlar vermişlər. Ancaq indiyə qədər Qarabağ bölgəsinin oronimləri tam olaraq tədqiq olunmamışdır.

Qarabağ bölgəsində mövcud olan oronimlər xalqımızın qədim zamanlardan müasir dövrə qədər olan yayılma areallarından, onların soykökündən, maddi-mənəvi dəyərlərindən, əkinçilik və maldarlıq vərdişlərindən, relyef quruluşundan, dilimizin inkişaf dövrlərindən məlumat verən qaynaqlardandır. Relyef quruluşuna əsasən mikrooronimlər yaranmışdır. Müsbət və mənfi relyef formalı mikrooronimlər xeyli saydadır. "Respublikamız ərazisində qeydə alınan bir qrup oroqrafik obyektlərə yaxınlığındakı obyektin adı ilə bağlı ad verilmişdir. Araşdırmalardan məlum olur ki, həmin oroobyektlər növcə müxtəlifdir: dağ, yal, qaya, zirvə, sıldırım, mağara, keçid, yoxuş, çökəklik, çuxur, yarğan, təpə, yaylaq, qobu, dərə" və s." (Məmmədov, 2007).

Onların yaranmasının başlanğıcı cəmiyyətin inkişaf prosesi ilə bağlı şəkildə meydana gəlmişdir və qədim zamanlarda orada yaşayan müxtəlif xalqların rolunu müəyyən etməyə imkan yaradır. Ona görə də bu toponimik vahidlər qiymətli sayılır.

Yer səthində hər bir elementi və obyekti adlandıran oronimlər zəngin quruluşa malik olub, yaranma formalarına, leksik-morfoloji, struktur-semantik tiplərinə görə bir-birindən fərqlidir. Bu isə coğrafi obyektlərin quruluşu, mövqeyi, orada məskunlaşan şəxslərin adları ilə əlaqədardır. Lakin ictimai-siyasi və sosial-iqtisadi səbəblərlə bağlı olaraq bu oronimlərdən müəyyən qismi yaddan çıxmış və ya başlıqları ilə əvəz olunmuşdur, bəziləri isə müasir dövrümüzə qədər gəlib çıxmışdır. Buna görə də oronimlərin məhz mənbə və məxəzlər əsasında araşdırılması çox vacibdir.

H.Mirzəyevin fikrincə, "Kiçik bir qrup insanlara məlum olan mikrotoponimlərdə dilimizin bir çox qatlarındakı leksik vahidlərə, şivə xüsusiyyətləri, yerli coğrafi terminlər və müəyyən tarixi hadisələr öz ilkin formasını qoruyub saxlayır. Strateji əhəmiyyəti çox böyük olan hərbi-topoqrafik xəritələrdə bu ünvanlar öz dəqiqliyini, qədimliyini daha yaxşı mühafizə edib saxlayır. Bunun başlıca səbəbi müharibə zamanı hər daşın, hər yolun, hər dağın böyük əhəmiyyəti ilə bağlıdır. Mikrooronimlərdə işlənən coğrafi terminlər həmişə öz həqiqi mənalarında işlənir və relyefi düzgün əks etdirir. Xırman yeri, Ballı qaya, Şiş qaya, Çuxur yer, Pirin dalı və s." ( Mirzəyev, 2006).

Aslan Bayramov yazır: "Müasir dövrümüzdə olan insanlara məlum olan coğrafi obyektlər, yəni mikrotoponimlər olmuşdur. Mikrooronimlərin makrotoponim səviyyəsində işlədilməsi – toponimləşməsi müəyyən tarixi hadisələrlə bağlıdır. Mikrotoponimlər də makrotoponimlər təki qiymətli məxəzdir. Bir sıra qiymətli dil vahidləri, müxtəlif coğrafi terminlər, tarixi hadisələri əks etdirən leksik vahidlər mikrotoponimlərdə qorunub saxlanılır" (Bayramov, 2003). Mikrooronimlər xalqımızın dil faktlarının daşıyıcısıdır.

T.Əhmədova görə, "Ümumazərbaycan toponimlər sistemi baxımından Azərbaycan oronimiyasında əsas yeri mikroobyekt adlarını bildirməyə xidmət edən mikrooronimlər – təsviri, ilkin söz birləşməsi şəklində işlənən oronimlər təşkil edir. Mikrooronimlər komponentlərinin ifadə vasitələrinə görə mürəkkəb oronimlərdən fərqlənmir. (Bu, bütün növ mikrotoponimlərə aiddir)" (Əhmədov, 1991). Qarabağ bölgəsində qeydə alınan mikrotoponimlər sisteminə daxil o0lan mikrooronimlər oykonim və hidronimlərdən fərqlənir. "Tam ilkin formada fəaliyyət göstərərək, xüsusi ada çevrilməyən və aralıq mövqe tutan mikrooronimləri oykonim və hidronimlərə daxil olmayan bütün növ obyekt adlarını – zirvə, təpə, eniş, yoxuş, burun, aşırım, meşə, çöl, düz, sahə və s. özündə birləşdirir. Bunların bir qrupu həm sadə (onu qeyd edək ki, bu çox az hissəni təşkil edir) həm mürəkkəb, həm də ilkin tam formada işləndikləri halda, bəziləri sadə və təsviri strukturda, bir qismi yalnız təsviri formada fəaliyyət göstərirlər" (Rzayev, 2003). Mikrooronimlər antroponimlərdən, etnonimlərdən, oykonimlərdən, oronimlərdən, zoonimlərdən, fitonimlərdən yarana bilir. Bununla yanaşı, mikrooronimlər spesifik əlamətlərinə (süxurlarının rənginə, süxurlarının tərkibinə, ölçülərinə, səthinin bitkisiz olmasına, say tərkibinə, suyunun dadına, suyunun rejiminə, yerləşdiyi cəhətə, baş verən hadisəyə) əsasən ad ala bilir.

Qarabağ bölgəsinin landşaftında oronimlər silinməz izlər qoymuşdur. Belə ki, bu onimlər Azərbaycan xalqının tarixi dövrlər ərzindəki inkişaf prosesi haqqında məlumat verir.

Oronimlərdən əmələ gələn mikrotoponimlər sintaktik xüsusiyyətlərinə görə I və II növ təyini söz birləşməsi şəklində özünü göstərir.

1) I növ təyini söz birləşməsi formasında olan mikrooronimlər: Rəsultəpə, Bəşirtəpə, Kərimtəpə, Kazımtəpə, Güllütəpə, Namazəlitəpə, Ağabəytəpə, Şomulutəpə, Vəlibəytəpə, Yolkəsəntəpə, Mərmərtəpə, Qoşatəpə, Əbdüləzimtəpə, Qəbirsitanlıqtəpə, Düztəpə, Evtəpə, Sulduztəpə, Adsıztəpə, Kazımbəytəpə, Bəhməztəpə və s.

2) II növ təyini söz birləşməsi formasında olan mikrooronimlər: İsmayılbəyli təpəsi, Namazəli təpəsi, Şükürbəyli təpəsi, Nəsirbəy təpəsi, Pəricahan xanımın bağ yeri, Canavar yeri və s.

3) III növ təyini söz birləşməsi formasında olan mikrooronimlər: Pəricahan xanımın bağ yeri, Bəhram bəyin bağı, Alının körpüsü, Mütəllimin bağı və s.

Oronimlərin adlandırılaraq təsnif olunması toponimiyada mühüm rola malikdir. Mikrotoponimlərin müəyyən qismi oronimlərdən yarana bilir. Bu oronimlər linqvistik xüsusiyyətlərinə görə özündə dialekt və şivələri, coğrafi nomenləri əks etdirir. Oronimlərdən əmələ gələn mikrotoponimlərin bir qismi relyef bildirən sözlər və digər apelyativlərdən ibarət olur. Belə ki, bu qrupa aid olan mikrotoponimləri 2 qrupa ayıra bilərik:

1) Oronim+oronim quruluşunda olan mikooronimlər. Bu zaman bir oronim digərini yaradır.

Yeddixırman (Yeddixırman dağı); Yedditəpə (Yedditəpə ayrığı); Aşağıyer (Aşağıyer ayrığı); Dördtəpə (Dördtəpə yüksəklik); Acıdərə (Acıdərə dağı); Ağqaya (Ağqaya dağı); Göyarx (Göyarx dərəsi); Ağgədik (Ağgədik dağı) və s.

2) Coğrafi nomenlərin tipologiyasını ifadə edən apelyativlər oronimləri yaradır.

Dərə, zəmi (Dərəzəmi); Daş, yal (Daşlı yal); Xırman, yer (Xırman yeri); Daş, yoxuş (Daşlı yoxuş), Daş, dərə (Daşlı dərə) və s.

Bu mikrooronimlərin bəzisinin təhlilinə fikir verək:

Rəsultəpə. Ağdam rayonunda mikrotoponim. Antroponimdən əmələ gələn toponimdir. Rəsul şəxs adına təpə mənfi relyef forması bildirən terminin artırılması nəticəsində yaranmışdır. "Rəsul adlı şəxsin adı ilə bağlı olan təpə" mənasındadır.

Şaqax aşırımı. Xocavənd rayonunda mikrotoponim. Fars dilində şaqax "şah yeri" mənasını bildirir. Aşırım isə "dağın beli, dağı aşmaq üçün yararlı yer" anlamını bildirir.

Şükürbəyli təpəsi. Ağdam rayonunda mikrotoponim. Patronimdən əmələ gələn toponimdir. Şükürbəyli tayfa adına təpə mənfi relyef forması artırmaqla yaranmışdır. -Iı şəkilçisi "aidlik, mənsubluq" bildirir. Mikrotoponim "Şükürbəyli nəslinin adı ilə bağlı olan təpə" mənasında işlənir.

Zoğal dərəsi. Xocalı rayonunda mikrotoponim. Fitonimdən əmələ gələn yer-yurd adıdır. Zoğal ağac adına "iki təpə və ya dağ arasında olan yer" mənası bildirən dərə coğrafi terminin artırılması nəticəsində yaranmışdır. Dərədə çoxlu zoğal ağacları olduğu üçün bu şəkildə ad almışdır.

Yedditəpə ayrığı. Ağdam rayonunda mikrotoponim. Say tərkibinə əsasən ad alan posessiv (ərazinin sahibinə məxsus olduğunu bildirən) toponimdir. Yeddi sayına təpə mənfi relyef forması bildirən terminin artırılması nəticəsində yaranmışdır. Ayrıq sözü "Çoxillik bitki" mənasını, -I şəkilçisi "aidlik, mənsubluq" anlayışını bildirir.

Aşağıyer ayrığı. Ağdam rayonunda mikrotoponim. İstiqamət bildirən aşağı sözünə "kənd təsərrüfatı məqsədləri üçün istifadə olunan torpaq, əkin yer" mənası bildirən yer sözünün artırılması nəticəsində yaranmışdır. Ayrıq sözü "çoxillik taxıllar fəsiləsinə aid olan ot" deməkdir.

Arxac dərəsi. Füzuli rayonunda mikrotoponim. Arxac sözü kənd təsərrüfatı fəaliyyəti ilə bağlı olaraq yaranan sözdür, mal-qaranın yatağı mənasını ifadə edir. İsti vaxtlarda sürü və naxırın olduğu ərazidir. Dərə isə mənfi relyef forması bildirən termindir. Dərənin ərazisində mal-qara otarıldığı üçün bu şəkildə adlanmışdır.

Daşlı yoxuş. Ağdam rayonunda mikrotoponim. Toponimik vahidlər arasında geniş adyaratma imkanına malik olan mikrotoponimlərdən biri də Daşlı dərədir. Oroqrafik obyekt süxurunun tərkibinə əsasən belə adlandırılıbdır. Toponimiyada daş termini "qayalı, daşlı" mənasında işlənə bilir. Mikrotoponimin tərkibində işlənən dərə süxurunun tərkibinin daşlardan ibarət olması ilə əlaqədardır. Yoxuş sözü "yolun dağa, təpəyə tərəf olan tərəfi" mənasını bildirir.

Çadır yamacı. Şuşa rayonunda mikrotoponim. "Su keçirməyən parçadan hazırlanan yaşayış üçün yer" mənası bildirən çadır sözü ilə "dağın, təpənin yüksək yerindən aşağıya tərəf olan hissəsi" mənasını ifadə edən yamac sözünün birləşməsi nəticəsində yaranmışdır. Bənzətmə əsasında əmələ gələn toponimdir.

Qonur yal. Tərtər rayonunda mikrotoponim. Rəng bildirən qonur sözü ilə "hündür bir yerin başı, təpəsi, dik yeri" mənası bildirən yal sözünün birləşməsindən yaranmışdır.

Kühul yalı. Xocavənd rayonunda mikrotoponim. Kühul və yal sözlərindən ibarətdir. Toponim "suyun axması üçün açılan deşik" mənasını bildirən kühul sözü ilə "hündür bir yerin təpə hissəsi, dik, dikdir" anlamı ifadə edən yal sözlərinin birləşməsi nəticəsində yaranmışdır.

Ceyran zəmi. Füzuli rayonunda mikrotoponim. Zoonimdən əmələ gələn mikrotoponimdir. Ceyran heyvan adına "əkin yeri, tarla" mənası bildirən zəmi coğrafi terminin artırılması nəticəsində əmələ gəlmişdir. Mikrotoponim ərazidə ceyranlar çox göründüyü üçün bu şəkildə ad almışdır.

Qalib çuxuru. Xocavənd rayonununda mikrotoponim. Antroponimdən əmələ gələn yer-yurd adıdır. Qalib şəxs adına "yer səthindən aşağıya çökən, oyulan yer, çala" mənası bildirən çuxur coğrafi terminin artırılması nəticəsində yaranmışdır. Relyef formasına əsasən ad almışdır. Mikrotoponimi "Qalibə məxsus olan çuxur" kimi izah etmək olar.

Nümunələrdən aydın olur ki, bu şəkildə yaranan oronimlərin tərkibində xırman, təpə, yer, qaya, arx, gədik, zəmi, yal, yer, yoxuş, daş və s. sözlərdən istifadə olunur

Nəticə olaraq deyə bilərik ki, oronimlərdən əmələ gələn mikrotoponimlərin tədqiq olunması rayonda məskunlaşan əhali tərəfindən adlandırılan, xalqımızın soykökü haqqında geniş məlumat verən əsas mənbələrdən biridir. Bu oroqrafik obyektlərin etimoloji izahının verilməsi və onların dilçilik nöqteyi-nəzərindən qruplaşdırılması dilimiz, adət-ənənəmiz, xalqımızın sənəti, peşəsi, məşğuliyyəti, habelə ərazidə qeydə alınan landşaft quruluşunun öyrənilməsi üçün geniş məlumatlar verir. Mikrotoponimlərin leksik-semantik xüsusiyyətlərinə görə təhlil olunması aşkar etdi ki, ərazidə bu toponimik vahidlər ümumi isimlərdən Çobandağ, Qazanqaya, Burundağ, Talvarqaya, Çeyildağ, Xırman, Dərəzəmi; saylardan Yeddixırman, Yedditəpə, Dördtəpə; sifələrdən Çılpaqdağ, Acıdərə, Ağqaya, Bozdağ, Şişdağ, Göyarx, Daşlı, Ağgüney; şəxs adlarından Rəsultəpə, Bəşirtəpə, Kərimtəpə, Kazımtəpə; tayfa, nəsil, tirə adlarından İlanlıtəpə, Şamlıtəpə, Çullutəpə; heyvan adlarından Keçicığırı, Canavar yeri yarana bilir.

TƏDQİQAT METODU

Məqalədə bir neçə tədqiqat metodundan istifadə edilmişdir: təsviri metod və tarixi metod. Mikrotoponimik tədqiqatın metodlarından biri təsviri metoddur. Biz Qarabağ bölgəsinin mikrotoponimik mənzərəsini və regionda qeydə alınan mikrooronimləri tədqiqata cəlb etmişik. Tarixi metoddan isə bu mikrotoponimlərin mənşəyini müəyyən etmək üçün istifadə edilmişdir.

NƏTİCƏ

Qarabağ bölgəsində mövcud olan oronimlər müxtəlif formada olan toponimik vahidləri yaratmışlar. Ərazinin geomorfoloji quruluşu çox sayda mikrooronimlər yaratmışdır. Rayonunun düzən olan hissəsində onimlər az qeydə alınmışdır. Beləliklə, Qarabağ bölgəsində eniş, yoxuş, dağ, dərə, təpə, til, yarğan, uçurum, qaya, çöl, düzən, düzənlik bir sözlə torpağın üst səthində rast gəlinən bütün coğrafi adlar oronimlər adlanır və kənddə yaşayan əhalinin əsas mülkü hesab olunur. Qeyd etmək lazımdır ki, ərazidəki oronimlər öz formasına görə sabitdir. Ona görə də onların tədqiqinin xüsusi elmi əhəmiyyəti vardır. Oronimlərdən əmələ gələn mikrotoponimlər öz xüsusiyyətinə görə digər toponimik vahidlərdən fərqlənir. Oronimlər adlandırılan zaman həm müsbət, həm də mənfi quruluşda olan toponimik vahidlər mühüm rol oynayır. Qarabağ bölgəsində mikrotoponimlər sistemində bu cür quruluşa malik olan Ağdam: Daşlı dərə (Xıdırlı kəndi), Dərəzəmi (Abdal kəndi), Gədikdağ (Abdal kəndi), Xırman yeri (Cinli kəndi), Qayalı təpələr (Xıdırlı və Qiyaslı kəndi); Çılpaqdağ, Yeddixırman, Çobandağ, Yedditəpə, Burundağ, Aşağıyer, Talvarqaya, Dördtəpə, Acıdərə, Ağqaya, Bozdağ, Şişdağ, Göyarx, Çeyildağ, Ağgədik, Ağgüney, Daşdı, Dərəzəmi, Yeddixırman, Xırman; Xocavənd rayonu: Ağdaş, Ağqaya, Dağdöşü yalı, Daşbaşı yalı, Qaraqaya dağı, Qarazəmi örüşü, Daşlı dağ; Füzuli: Arxac dərəsi, Yelligədik, Ceyran zəmi; Şuşa: Çadır yamacı; Tərtər: Qonur yal, Qara arxac; Xocavənd: Kühul yalı, Şaqax aşırımı, Qalib çuxuru, və s. oronimlər özünü açıq şəkildə göstərir.

**ƏDƏBİYYAT SİYAHISI**

1.Aslan Bayramov. (2003). Qədim Oğuz ellərinin - Ağbaba, Şörəyel və Pəmbək bölgələrinin yer-yurd adları (toponimləri), Sumqayıt, 234 s.

2.Firudin Rzayev. (2003). Əlincə çayı Vadisi toponimlərində türk layı, Filologiya elmləri namizədi almaq üçün təqdim olunmuş dissertasiya, Naxçıvan,176 s.

3.Həsən Mirzəyev. (2006). Azərbaycan toponimləri və şivə sözləri, Bakı, Elm, 536 s.

4.Nadir Məmmədov. (2007). Toponimika, Bakı, Bakı Universiteti nəşriyyatı, 408 s.

5.Tofiq Əhmədov. (1991)ş Azərbaycan toponimikasının əsasları, Bakı, Bakı Universiteti nəşriyyatı, 312 s.

# ÖZBƏK DİLİNİN SABİT OPERATÖRÜ, KLASSIFIKATOR BÖLGELƏRİ ÜÇÜN SEMANTİK TƏQLƏR DƏSTƏSİ

**HƏMİDOV MƏNSUR (PHD)**
Termiz Dövlət Universitetinin müəllimi

**KAHAROVA İRODA EŞQABİLİN QIZIDIR**
Temiz Dövlət Universitetinin tələbəsi
Özbəkistan

**XÜLASƏ**

Bu məqalədə özbək dilinin vahidləri ilə bağlı aparılan tədqiqat və nəzəriyyələr vasitəsilə linqvistik korpusun praktik əhəmiyyəti vurğulanır.

**ABSTRACT**

In this article, the practical importance of the linguistic corpus is highlighted through research and theories on the units of the Uzbek language.

**AÇAR SÖZLƏR: korpus, semantik təsnifat, semantik teqlər, semantika, semasiologiya, seme, semema, söz, lemma, omonimiya, polisemiya, seme valentlikləri, semantik marker, semantik fərqləndirici.**

**KEY WORDS: corpus, semantic classification, semantic tags, semantics, semasiology, seme, sememe, word, lemma, homonymy, polysemy, sememe valences, semantic marker, semantic differentiator.**

Korpus dilçiliyində semantik işarələmə nəzəriyyəsi, semantik işarələmə problemləri ilə bağlı bir neçə tədqiqat var. Hər bir dilin korpusu üçün semantik teqlər toplusunun yaradılması prinsiplərinin işlənib hazırlanması bu dilin xüsusiyyətlərinə əsaslanır. Ona görə də özbək dilinin semantikası və semasiologiyası üzrə aparılan tədqiqatlar özbək dilinin korpusunda semantik işarələr toplusunun yaradılması, sözlərin semantik işarələnməsi prinsiplərinin işlənib hazırlanması üçün nəzəri əsas rolunu oynayır.Sözün semantik işarələnməsinin tam əhatə olunmasını tələb edir. onun semantikası. Fikir gətirir. İ.Koçkortoyevin fikrincə, verilmiş tərifl ər sözü qeyri-söz vahidindən (morfema, söz birləşmə, cümlə və s.) ayırmağa imkan verən xüsusiyyətləri tam dəqiqləşdirməmişdir [İ. Koçkortoyev, 1965:122] sözün məfhumunu mükəmməl, ardıcıl və ziddiyyətsiz müəyyən etmək bəzi alimləri bu mövzuya dönə-dönə toxunmağa məcbur etmişdir. Məsələn, A. Meyenin əsərlərində anlayış sözünün dörd fərqli tərifi var. Bu tərifl ərdən biri (xronoloji olaraq üçüncü) Mayenin məşhur düsturu adı ilə dilçilər arasında geniş tanınır; C.Maruzonun linqvistik terminlər lüğətinə daxil edilmişdir. Bu tərif belədir: “Müəyyən qrammatik işlənməyə imkan verən müəyyən səs kompleksinin müəyyən məna ilə əlaqəsi (birliyi) söz adlanır” [Maruzo, 1960:274.] görməmək mümkün deyil. ən əsaslıdır. Buna baxmayaraq, sözün bu tərifində ciddi qüsurlar var. Əvvəla qeyd edək ki, bu tərifdə omonimiya ilə çoxmənalılığı ayırmaq üçün heç bir meyar yoxdur: tərifdən polisemantik söz mənalarının hər biri ayrıca sözdür. İkincisi, tərifdə verilən gender anlayışı (ümumi anlayış) ilə sözü məhdudlaşdırmalı olan konkret işarədə aydınlıq və ardıcıllıq yoxdur. A.Meyenin tərifində gender anlayış kimi konkret mənanın konkret səs kompleksi ilə əlaqəsi (assosiasiyası) kimi verilir. Konsept sözünün səs kompleksli məna vahidi kimi müəyyən edilməsinə başqa dilçi alimlərdə də rast gəlinir. Q.Qlisonun “Təsviri dilçiliyə giriş” əsərində dilin üç komponentindən bəhs edilir. İfadə strukturunun vahidi morfem, məzmun strukturunun vahidi isə sememdir.Q.Qlisonun bu təsnifatı lemmaların semantik işarələnməsində korpus dilçiliyi üçün çox faydalıdır. Dil korpusunda söz formasının morfoloji işarələnməsi onun ifadə strukturuna əsaslanır, məzmun strukturu isə semantik işarələmədə tam şəkildə işarələnməlidir. Məzmun strukturu tam əhatə olunmasa, belə korpus sözün bütün mənalarını əhatə etmədiyi üçün dilin zənginliyini tam ifadə edə bilməz. Lüğət dil korpusunun semantik bazasıdır. İ.Koçkortoyev bildirmişdir ki, sözlə bağlı məsələlərdən biri sözün semantik həcminin xarakteri məsələsidir. Semasioloji tədqiqatlar üçün fundamental əhəmiyyət kəsb edən bu məsələ dilçilikdə müxtəlif cür şərh edilmişdir. Dil korpusu yaradarkən və onun vahidlərini işarələyərkən bu şərhlərə və baxışlara müraciət etmək zərurəti yaranır. Bütün dilçilər tərəfindən etiraf olunur ki, sözün semantik

həcmi (sözün məzmunu, məna tərəfi) bütöv, ayrılmaz hadisə deyil. Söz semantikasının elementlərinin eyni tipli hadisələr olmadığına heç kim şübhə etmir.

Dilçilər arasında gərgin müzakirələrə səbəb olan məsələ söz semantikasının elementlərinin bir-biri ilə əlaqəsi məsələsidir: söz semantikasının elementlərinə müxtəlif mənalar kimi baxmaq lazımdır, yoxsa eyni mənanın müxtəlif forma və variantları kimi? Dil korpusunda sözlərin semantik işarələnməsində bu problemin həlli necə olmalıdır?Bir qrup elm adamının fikrincə, dil vahidi olan fonem nitqdə konkret səsdə (variantda) reallaşdığı kimi. sözün mənası (ümumi məna).xüsusi hadisə kimi reallaşacaq. [Zvigensev, 1957:217] Məsələnin bu cür qoyuluşu iki hadisə arasında fərq qoyulmasını tələb edir: ümumi məna (1) və xüsusi mənanın variantları (2). Bu sözün mənasını başa düşmək çoxmənalılığı rədd edir. Bu baxımdan əsas məna, düzgün məna, məcazi məna kimi terminlər real hadisələri bildirmir; sözün belə mənaları yoxdur. V.A.Zveginsev yazır ki, bir sözün "bir neçə "mənası" ola bilməz". - Sözün mənasında müəyyən ümumiləşdirmənin nəticəsi güclənir və bu ümumiləşdirmə prosesi dilin bütün həyatı və inkişafı boyu dayanmır, bir sözlə bir neçə istiqamətdə ümumiləşdirmək mümkün deyil. Buna görə də sözün birdən artıq mənası yoxdur, çünki V.A.Zveginsevə görə, polisemiyanın əmələ gəlməsi üçün birdən çox istiqamətdə ümumiləşdirmə paralel aparılmalıdır. "Sözün mənası bir sıra potensial tipik birləşmələrdən ibarət ola bilər, - V.A. Zveginsev yazır ki, bu potensial tipik birləşmələr sözün vahid mənasını müxtəlif rakurslardan təsvir edir." Baxmayaraq ki, "oyasi" termini indi əksər insanlar tərəfindən tanınır. semasioloqlar qeyd edirlər ki, bu məzmunun mahiyyəti və məna komponentləri arasındakı əlaqə ilə bağlı hələ də çoxlu mübahisəli məsələlər mövcuddur.Bəzi dilçilər leksik mənası (semema) diferensial semantik simvolların sadə toplusu kimi şərh edirlər. Bu baxışa görə, leksik mənanın komponentləri bir-biri ilə bərabər qiymətlidir və bir məna digərindən semantik işarələrin xarakterinə və sayına görə fərqlənir. Bununla bağlı T.P.Lomtevin müşahidələrinə istinad etmək olar. Məqalələrinin birində müxtəlif intellektual qabiliyyətlərə malik şəxsləri bildirən sözlərin məna tərkibinin komponent tərkibi təhlil edilmişdir. [Lomtev, 1976:296-297.] T.P.Lomtevə görə, bu cür sözlərin (ümumiyyətlə, bütün sözlərin) mənaları mövcud lüğətlərdə tam açıqlanmır. Məsələn, müdrik (mudrets) sözünün mənası lüğətlərdə müdrik şəxs kimi, zirək (ponyatlivyy) sözünün mənası isə tez başa düşülmə tərzində izah edilir.

Müdrik - 1) adam, 2) düşünməyi bacaran, 3) zəngin intuisiya sahibi, 4) tez başa düşən, 5) çox oxuyan;

Hiss edən - 1) insan, 2) düşünə bilən, 3) intuisiya sahibi, 4) normal anlayış.

Bu məqamda bizi maraqlandırır ki, yuxarıdakı təfsirdə müdrik və ziyalı sözlərinin mənaları necə göstərilib? Verilən təfsirdən belə başa düşülür ki, "müdrik" sözünün mənası beş, "ağıl" sözünün mənası isə dörd komponentdən ibarətdir. Bu komponentlərdən bəziləri hər iki söz üçün ümumidir:

I. adam, 2) düşünə bilən. Komponentlər qrupu xüsusi xarakter daşıyır: 1) zəngin intuisiya sahibi, 2) tez başa düşülən, 3) yaxşı oxunan (bu komponentlər müdrik sözünə aiddir);

II. intuisiya sahibi, 2) normal anlayan (bu komponentlər zəka sözünə aiddir).

Leksik məna komponentlərinin iki (ümumi və xüsusi komponentlər) qruplaşdırılması onların məna strukturunda müxtəlif mövqeləri ilə bağlıdır. Bu o deməkdir ki, leksik mənanın semantik komponentləri bərabər dəyərli elementlər deyil, bir-birinə tabe olub, bir-birini izah edir. Semantik marker konkret dil lüğəti üçün müntəzəm xarakter daşıyan xüsusiyyəti ifadə edən leksik vahidin məna komponentidir. Bu komponent bu leksik vahidlə bu komponentə malik olan digər leksik vahidlər arasında sistemli əlaqəni ifadə edir. Başqa sözlə desək, semantik marker birdən çox semanı bir leksik-semantik qrupa birləşdirən əsasdır. [İ. Kochkortoyev, 1977: 96] Semantik marker və semantik fərqləndirici korpus vahidlərinin semantik işarələnməsində çox vacib parametrlərdir. Leksik mənanın (sememenin) strukturu haqqında deyilənlər aşağıdakı nəticələr çıxarmağa imkan verir:

1. Semema (leksik məna) hissələrə bölünməsi mümkün olmayan bütöv bir hadisə deyil. Semema ideal elementlərin (ideal komponentlərin) spesifik strukturundan ibarətdir.

2. Sememanın strukturunun iki müxtəlif elementi (leksik məna) bir-birini fərqləndirir: semantik (leksik-semantik) komponent və valentliklər (struktur sintaqmatik komponent) 3.Sememanın strukturunda tutduğu yerə görə, komponentlər üç növə bölünür: ümumi (birləşdirici), differensial (fərqləndirici) və əlavə komponentlər 4.Semem valentlikləri nitq axarında ifadə xarakterinə görə iki növ olur: sintaktik şəkildə reallaşan valentlər və sintaktik cəhətdən olmayan valentlər. həyata keçirmişdir.Özbək dilinin izahlı lüğətində müəyyən isim qrupuna aid olan isimlər üçün atributlar sisteminin işlənib hazırlanması, bu mənalı sözlərin bu tag qruplarında yerləşdirilməsi və kimi özbək dili korpusu üçün semantik işarələr sisteminin işlənib hazırlanması nəticədə proqram təminatı "təchizatı yaratmaq aktual məsələ hesab olunur. [Özbək dilinin izahlı lüğəti, 5 cild, 2000-2006: 23]. Özbək dilinin korpusu üçün semantik işarələr sisteminin işlənib

hazırlanması hazırda sözləri birləşdirir. özbək dilinin müəyyən qruplara. Nəticə etibarı ilə müəyyən bir sahədə olan insanlar üçün eyni qrupa aid sözləri tapmaq və istifadə etmək asandır. Semantik etiketləməni aşağıda ətraflı izah edirik.

1. Qaranquş 1 - sərçə fəsiləsindən kiçik quş, nazik və uzun qanadlı, çox tez uçan, qara rəngli xırda quş. Dəvə qaranquşu. Şəhər qaranquşu. Dağ qaranquşu. Salor çayı boyu bir neçə qaranquş uçurdu, bir qoyun "vəlfəcr" oxuyurdu. Ə.Kadiri. "Keçən günlər" yuvası – quşların, həşəratların, heyvanların yaşamaq, uşaq böyütmək üçün tikdiyi yer, yuva: – Ay, bax, bizim evdə qaranquşlar yuva qurur. Deməli, bizimlə yaşasalar da, gözlərini iri açaraq dedi. uçmaq.ilan tozu dişləyib dilini kəsdi. Bir anda yanından bir qaranquş uçdu. İlan: Gəl, de görüm, dünyanın ən şirin əti nədir? - debdi.http://erkatoy.uz/uzb/kutubkhona/hikoyayas/2558-kaldirg-och-immati~kelmoq - Natiq danışanla üzbəüz tərəfdən (yerdən) yerimək, uçmaq və ya getmək üçün nəqliyyat vasitəsi ilə dayanır. istiqamət, istiqamət; bu tərəfdə bir yerə çatmaq.Qaranquşlar tələsik otaqlarına girdilər, sonra tez geri çıxdılar və nə isə danışmağa başladılar. https://n.ziyouz.com/portal haqida/ harita/uzbeknasri/maqsud-qoriyev-926- 2010 /maqsud-kariyev-kaldirg-ac-baharda-geler 2.

2. I. Zəfəron - (ərəb. - ədviyyat bitkisi, zəfər) nazik uzun yarpaqlı, narıncı çiçəkli, soğana bənzər köklü və çiçəyindən hazırlanan ədviyyatlı, yeməyi dadlı və rəngarəng edən bitkidir. Zəfəran yeganə ədviyyatdır ki, qiyməti və dəyəri orta əsrlərdən indiyədək azalmayıb.~böyümək I - Boy və ya boylanmaq, böyümək, böyümək Uşaq yaxşı böyüdü. Böyük sahədə pambıq ildırım kimi böyüyür. Badam ağacı torpağı seçmir, qayalı və qumlu yerlərdə belə bitir.Qəzetdən ~ bitki - Havada və torpaqda üzvi və qeyri-üzvi maddələrlə qidalanır, qeyri-üzvi maddələri üzvi maddələrə çevirmək xüsusiyyətinə malikdir və adətən inkişaf edir. bir yerdə məskunlaşaraq.orqanizm. Zəfəran zəfəran fəsiləsinə aid olan subtropik bitki anasının qurudulmuş toxumudur. Xalq təbabətində ürəyi zəif, təngnəfəslik olan xəstələrə zəfəranlı çay içilir.Siz sirrin insan sağlamlığı üçün son dərəcə vacib, faydalı və müalicəvi xüsusiyyətlərindən xəbərdarsınızmı? Sözlərin semantik qruplarda qeyd edilməsi özbək dilinin korpusu və onun istifadəçiləri üçün geniş imkanlar və rahatlıqlar açır.

D. Əhmədovanın ümumi semantik işarələmədə işləndiyi hesab etdiyi semantik sahə, qrup, qruplar coğrafi terminlərin annotasiyasında (teqlanmasında) istifadə oluna bilər. Xüsusilə, onları operator və daimi teqlər kimi ayırmaq vacibdir. Coğrafi terminlərin çıxarılması üçün əsas göstəricilər aşağıdakılardır: <Çoxmənalı sözləri semantik olaraq işarələyərkən onların ümumi və terminoloji mənaları fərqləndirilməlidir: interfeysdə əvvəlcə sözün ümumi mənası, sonra terminoloji mənası Ekran istifadəçini rahatlaşdırır= [D. Əhmədova, 2020:103].

Dilçilik üzrə dərslik və monoqrafiyalarda indiki özbək ədəbi dilinin leksikası bir neçə leksik-tematik qrupa bölünür [Özbək dilinin leksikologiyası, 1981]. Bu LMG-lər operator teqləri kimi seçilə bilər, çünki onlar fərqli semantik xüsusiyyəti ifadə edirlər. Sabit etiket nisbidir: adətən semantik sahənin və ya makrosistemin adından gəlir. Aşağıda coğrafi mövzu ilə leksik vahidləri işarələmək üçün zəruri olan bir sıra sabit və operator teqləri verilmişdir: .

Sonda qeyd etmək lazımdır ki, özbək dilinin milli korpusunun yaradılması bu gün tətbiqi dilçiliyimizin qarşısında duran ən mühüm məsələlərdən biri kimi siyasət səviyyəsinə qaldırılıb.Özbək dilinin elektron milli korpusunun yaradılması ki, bütün elmi, nəzəri və praktiki məlumatları, internet dünya informasiya şəbəkəsində özbək dilinin populyarlaşdırılması, orada layiqli yer tutmasının təmin edilməsi, proqram məhsullarının özbək tətbiqlərinin yaradılması, özbək dilini öyrədən kompüter proqramlarının geniş miqyasda həyata keçirilməsi daxildir. özbək dilində mətnlərin redaktəsi üçün kompüter proqramlarının yaradılması Qarşıya qoyulan məqsədə çatmaq üçün korpusun linqvistik cəhəti də vacibdir.

**ƏDƏBİYYAT SİYAHISI:**

1. Ўзбек тилининг изоҳли луғати. Икки томлик. М., 1981. 2. Ҳожиев А. Ўзбек тили синонимларининг изоҳли луғати. - Тошкент. Ўқитувчи, 1974. 3. Ҳожиев А. Ўзбек тили синонимларининг изоҳли луғати. - Тошкент. Ўқитувчи, 1974. 4. Ўзбек тилининг изоҳли луғати (А.Мадвалиев таҳрири остида). 5 жилдлик. − Тошкент: "Ўзбекистон миллий энциклопедияси" Давлат илмий нашриёти, 2000-2006. 5. Ahmedova D. "Atov birliklarining o'zbek tili korpuslari uchun leksik –semantik teglashning lingvistik asos va modellari"; - T. 2008

6. Зализняк А.А. Русско-французский учебный словарь. – М., 1972. 7. https://n.ziyouz.com/kutubxona/category/10-o-zbek-tilining-izohli-lug-ati 8. http://idum.uz/uz/

# AŞIQ ŞƏMŞİR YARADICILIĞINDA LEKSİK VAHİDLƏR

**ƏFRANƏ HƏSƏNLI**
Bakı Dövlət Universitetinin Qazax filialı
efrane.hesenova96@gmail.com
QAZAX, AZƏRBAYCAN

**XÜLASƏ**

Şifahi xalq ədəbiyyatının aşıq yaradıcılığı bölümündə özünəməxsus sənət yolu olan sənətkarlardan biri də Aşıq Şəmşirdir. Dədə Şəmşir özünün xüsusi istedadı ilə seçilən aşıqlardandır. Göyçə-Kəlbəcər aşıq mühiti onun bir istedadlı sənətkar kimi formalaşmasında xüsusi rol oynamışdır. Onun lirikası özünəməxsusluğu ilə seçilir. Aşıq Şəmşir hər zaman aşıq şeir ənənələrini öz şeirlərində yaşatmışdır. Ümumiyyətlə, aparılan tədqiqatlar göstərir ki, o, ömrü boyu bu ənənəyə sadiq qalmışdır. Dədə Şəmşir öz poetik irsi ilə aşıq şeirimizdə silinməz iş qoyub getmişdir.

**AÇAR SÖZLƏR: Açar söz-aşıq, açar söz-məcazlar, 2, açar söz-leksik xüsusiyyət**

**KEY WORDS: key word-ashig, key word-metaphors, key word-lexical feature means of artistic description**

## GİRİŞ

Aşıq-ozan sənətinin kökləri çoxəsrlik tarixə malikdir. Dədə Qorquddan başlamış Dədə Şəmşirə kimi saz-söz sənətkarlarının böyük bir qisminin aşıq sənətinin formalaşmasında əvəzsiz yeri olmuşdur. Bu silsilədə Qurbani, Miskin Abdal, Sarı Aşıq, Tikmədaşlı Xəstə Qasım, Aşıq Alı , Aşıq Ələsgər və s. ozanların adını çəkə bilərik. Dədə Şəmşirin də bu ozanların içində özüməməxsus izi vardır. O, Qarabağ aşıq mühitinin ustad sənətkarlarından biridir. Biz onun yaradıcılığını Qarabağ aşıq mühitindən kənarda təsvir edə bilmərik. O, bir sənətkar kimi çox zəngin sənət mühitində yetişmişdir. Çünki tarixboyu bu ərazilərdə saz-söz sənəti eyni ənənələr üzərində yaranıb inkişaf etmişdir. Aşıq Şəmşir Qarabağ, Göyçə aşıq mühitinin poetik ənənələrindən bəhrələnərək böyük sənətkarlıqla əsərlər ərsəyə gətirmişdir. Bu mühitin zənginliyini, koloritini o, yaradıcılığı boyu yaşatmışdır.Aşıq Şəmşir təkcə yaradıcılığı ilə deyil, eyni zamanda şəxsiyyəti baxımından da aşıq sənətinin görkəmli davamçılarından biri olmuşdur. O, xalqının həyatına bağlı bir insan olmuş, özünü xalq həyatından ayrı təsəvvür edə bilməmişdir. Bu cəhətlərinə görə də Aşıq Şəmşir öz şəxsi-mənəvi dünyasını poeziyasında müəyyən normalar əsasında poetikləşdirmişdir. Onun qoşmaları, gəraylı, müxəmməsləri, təcnisləri öz məzmununa görə çox müasirdir. Aşıq Göyçə-Kəlbəcər ədəbi mühitinə məxsus sənətkar olmuşdur. Biz onun şeirlərində Azərbaycanımızın gözəl bir guşəsi olan Kəlbəcərin çaylarının zümzüməsini, dağlarının ucalığını, dağ ətəklərində bitmiş gül-çiçəklərin, lalələrin ətrini duyuruq. Yurdumuzun elə bir guşəsi, dağı, dərəsi yoxdur ki, Aşıq Şəmşir onun gözəlliyinə heyran qalıb, şeir qoşmasın. O, canı, qanı ilə vətəninə, yurduna, doğma Kəlbəcərinə bağlı bir insan idi.

Şəms olub günəş kimi səddin, sorağın,-Kəlbəcər,
Nihandan aşkara çıxır, sərvət yatağın, Kəbəcər,
Bağ-gülüstanə dönüb indiki çağın Kəlbəcər,
Təzə-gözəl əndazədə var ağ otağın, Kəlbəcər,
Sayrışır ulduz təhər şəmin, çırağın Kəlbəcər...

Məhəmmədhüseyn Təhmasib Aşıq Şəmşir ilə bağlı məqaləsində yazır: "Şəmşir zəngin şifahi ədəbiyyat xəzinəsindən, dastanlarımızdan, yazılı ədəbiyyatımızdan çox təsirlənmiş, yaradıcı kimi bacarıqla istifadə etmiş aşıqlarımızdandır. O hətta Füzulinin

İldə bir qurban kəsərlər xəlqi-aləm qeyd üçün,
Dəmədəm, saətbasaət mən sənin qurbanınam.

beytindən istifadə edərək "Olarmı" qoşmasını belə qurtarmışdır:

Şəmşir kəsə quzu sənə qurbanı,
O qamətə, gözəl cana qurban.
İldə bir yol olur Mina qurbanı,
Mən gündə qurbanın olum, olarmı (6,340).

Füzuli bu beyti bir xalq bayatısından bəhrələnərək yazmışdır, lakin Şəmşir isə onu yazılı ədəbiyyatdan alıb aşıq ədəbiyyatına geri qaytarmışdır.

Aşığın əsərlərinin içərisində insanları sədaqətə, dostluğa, cəsarətə, qardaşlığa çağıran humanist ruhlu ustadnamələri vardır. Ümumiyyətlə, şairin şeir dili çox sadədir. Onun dilinin əsasını lüğət tərkibini canlı xalq dili, folklorumuzdan gələn sözlər təşkil edir.

Z.Məmmədov klassik aşıq poeziyası dilinin araşdırılmasının vacibliyini göstərərkən yazır: "Aşıq poeziyasının dil-üslub xüsusiyyətlərinin öyrənilməsi bütövlükdə aşıq sənətinin tədqiqi işinin tərkib hissəsi kimi mühüm bir funksiya yerinə yetirir. Yəni bu tədqiqatlar ilk növbədə aşıq sənətinin daha dolğun öyrənilməsi üçün lazımdır (4,3).

Digər aşıqlarımızın, şairlərimizin, yazıçılarımızın dilində olduğu kimi Aşıq Şəmşirin şeirlərində də Azərbaycan dilinin leksik imkanları nəzərə çarpır. Aşıq Şəmşirin dilində işlənmiş leksik vahidləri aşağıdakı şəkildə qruplaşdıra bilərik:

Məcazlar:

Aşıq şeirlərində məcazlardan çox geniş şəkildə istifadə etmişdir.Bu da onun yüksək sənətkarlığından xəbər verir. "Aşıq Şəmşirin Azərbaycan xalqına və millətimizə ən böyük xidmətlərindən biri onun dilimizə xidməti olmuşdur. Azərbaycan türkcəsinə xidməti olmuşdur. O, yaradıcılığı ilə Azərbaycan türkcəsini zənginləşdirdi"(4,70).

Qarabağ gözəli, bizim dağlara,
Zimistanın gözü yumşalanda gəl.
Buzlu bulaqların buzu sınanda
Nərgizin dodağı qımışanda gəl (1,216).

Burada şair "Zimistanın gözü yumşalanda" deyərkən qışın qurtarmasını nəzərdə tutur. Nərgizin duruşunu isə dodağın tərpənməsinə bənzədir.Şair burada insana aid hərəkətlərin əşyalar üzərinə köçürməklə maraqlı metafor yaratmışdır. Digər bir nümunəyə nəzər yetirək:

Necə cavab verim, səni soruşur,
Suala çağırır, lalalar məni.
Deyir, hayandadı şeirin ustadı?
Dindirir al-əlvan talalar məni (1,142).

Soruşmaq, dinləmək insana aid olan xüsusiyyətdir.Amma burada bu xüsusiyyət talaların, lalələrin üzərinə köçürülərək metafor yaratmışdır.

Epitet:

Şairin şeirlərinin dilinə gözəllik verən bədii təsvir vasitələrindən biri də epitetlərdir.

Dərin fikir yükdü bisavadlara,
Yazısız dastanlar gələmməz kara.
Alınmaz matahı çəkmə bazara.
Üzükdə mirvari qaş olsun gərək (1,38).

Qılman tamaşalım, loğman kamallım,
Züleyxa eşqlim, Yusif camallım.
Məcnunu mən olan Leyli xəyallım
Artır intizarım, görünmür niyə? (1,65).

Bu nümunədə şair "qılman tamaşalı", "loğman kamallı", "Yusif camallı", "Leyli xəyallı" kimi epitetlərlə sanki təsvir edilmiş gözəlin şəklini çəkir.

Ey könül, bu yolda çox sinə gərdin,
Qəm yükü yorubdu səni bu dərdin (1,75).

Aşığın işlətdiyi bu epitetlər şeirlərin mənasını daha da qüvvətləndirir. Burada əşya və hadisələrə artırılan əlavələr (epitetlər) onun əlamət və keyfiyyəti, eyni zamanda onun mahiyyəti ilə əlaqədardır.

Təşbeh:

Bəxtəvərin nə qaradır qaşları,
Hüsnü qəşəng güldür, dodağı göyçək.
Təhri-yasəməndir o yanaqları,
Nə qəşəng yaranıb buxağı göyçək (1,83).

Burada aşıq 2 təşbeh yaratmışdır. O, təsvir etdiyi gözəlin hüsnünü gülə, yanaqlarını yasəmənə bənzətmişdir.

Niyə uzaq düşür cənnət axataran,
Dünyanın cənnəti dağdımı, dağdı.
Dağlar bulağından sulanır aran,
Bitirən neməti dağdımı, dağdı (1,46) .

Burada görkəmli sənətkar dünyanın dağlarını cənnətə oxşatmaqla bənzətmə yaratmışdır. Dağların xoş, təmiz havası, saf suyu, min bir dərdin dərmanı olan bitkiləri, zərif gül- çiçəyi yalnız cənnətlə müqayisə oluna bilər.

Mənim fəryadımdı dağın çiskini,
Nəfəsimin çıxarıdı buludlar.
Uşaqkən ağladım, çəkdim pis günü.
Göz yaşımın axarıdı buludlar (1,23).

Şair burada şeirin ifadə olunan ictimai mənanı bizə çatdırmaq üçün obrazlara müraciət etmişdir. Dağın çiskinini öz fəryadına, nəfəsinin çıxarını, göz yaşlarının axarını isə buludlara bənzətmişdir.

Ziyarətim var qaşına, gözünə
Qul kəmtərəm, qulluq edim özünə,
İxtiyar ver, üzüm sürtüm üzünə,
Ləblərində bala bağışla məni (1,225).

Bu bənddə təsəvvüf-irfan ideyaları özünü göstərir. Şeir parçasında şair qaşa, gözə ziyarət edilməsi Allahın insanda əksini tapması ideyasını özündə əks etdirmişdir. Bu da demək olar ki, bütün sufi cərəyanları üçün eyni idi. Sufi-hürufi ənənəsində insanın üzü Allahı və dünyanı, kainatı özündə əks etdirir. Hürufilər insanın üzündə "Allah" kəlməsinin yazıldığını deyirdilər. Hürufi sözü "hərf" sözündən götürülmüşdür. Onlar Allah sözündəki hərfləri qaşa, buruna, ağıza oxşadırdılar. Aşıq Şəmşirin də bu bənddə işlətdiyi bənzətmə bu ideya ilə bağlıdır.

Metafor:

"Klassik aşıq poeziyasında müşahidə olunan məcazlar içərisində bədii fikrin ifadəsi baxımından ən güclüsü, növ və formaların zənginliyinə, işlənmə dairəsinin genişliyinə görə ən imkanlısı metafordur (4,222).

Köynəksizdi, soyuq dəyib,
Yaman xəstəhaldı sazım.
Dərdə qaldı, hala yandı-
Özün dərdə saldı sazım (1,291).

Aşıq burada maraqlı metafor nümunəsi yaratmışdır. Canlılara xas olan əlamət və keyfiyyət sazın üzərinə köçürülmüş və nəticədə fikrin obrazlılığı daha da artmışdır.

Metonimiya:

Aşıq poeziyasında müraciət olunan bədii təsvir vasitələrindən biri də metonimiyadır. "Metonimiya klassik aşıq poeziyasının dilində metaforlara nisbətən çox məhdud şəkildə işlənir və növ müxtəlifliyi baxımından da onun kimi zəngin deyil (4,232).

Gülür Ağtstafa, Qazax, Qarabağ,
Qoşqarın başında yanır min çıraq (1,208).

Bu yaxşı görüşdü bizə müyəssər,
Qonuşmağa mövcə gəlir bəhri-bər.
Sanki ayaqlaşıb Laçın, Kəlbəcər,
Şəmşiri görməyə bütün el gəlir (1,83).

Mübaliğə:

Aşıq Şəmşir şeirlərində fikri, ideyanı olduğundan daha da təsirli, qüvvətli etmək üçün mübaliğədən də istifadə etmişdir.

Boran, külək yaman qalxıb bu yerdə,
Qorxuram bəd əsər, atar dağları (1,49).
Burada boranın, küləyin dağları yerindən qoparıb atması mübaliğədir.

İnan, səndən kəsilməzdi gümanım,
Niyə yad olubsan, a mehribanım.
Od tutur, qorlanır, alışır canım,
Sanki kabab yanır köz qabağında (1,133).

Bu nümunədə aşıq eşqin əzabını odla müqayisə edərək, lirik qəhrəmanın canının məşuqənin eşqindən od tutub alışdığını, kabab kimi yandığını göstərərək maraqlı mübaliğə yaratmışdır.

Litota: Aşıq Şəmşir poeziyasında litotanın da maraqlı nümunələri vardır.

Bezə astar vurmaq olmaz ipəkdən,
Mərifət qanana naziyəm tükdən.
Yaz yağı tək süzülmüşəm çiçəkdən,
Qatımda ayranım, kəfim yoxdu ki (1,272).

Bədii sual:

Şair şeirlərinin dilində kifayət qədər bədii suallardan da istifadə etmişdir.

Gen dünya başına niyə oldu dar?
Gözəl bulaqlara çəkdim ahu-zar(1,41)

Tənə, təhqir vurur mətləb qanana,
Belə zülmə insan necə dayana? (1,42)

Gözüm gözlərinin intizarıdı,
Gözəllər sultanı, niyə gəlmədin?
Aralıqda ilqarımız varıdı,
Pozdun o peymanı, niyə gəlmədin?

De hansı fitnəyə, felə aldandın,
Dönməz idin, nədən belə aldandın?
Atdın məhəbbəti, pula aldandın,
Qəlbimin düşməni, niyə gəlmədin? (1,195)

Şairin qoşmalarında yaratdığı sevgili obrazları bir çox hallarda vəfasız, etibarsız olmaqda günahlandırılır. Bu qoşmanın da bədii suallar əsasında qurulması şairin sənətkarlığının göstəricisidir. Burada aşiq məşuqəsini əhdi-peymanını pozmaqda, vəfasız, sədaqətsiz olmaqla, məhəbbətini pula satmaqda günahlandırır.

Anadan olanda ağlayan insan,
Niyə ağlasınlar öləndə səni?
Dedilərmi yaranmışa ölüm var,
Xəbərdar etdilər gələndə səni? (1,25)

ədə Şəmşir bu misralarla insanları ayılmağa, boş-boşuna vaxt keçirməməyə cağırır.

Antiteza:

"Antiteza obrazlılığın mükəmməl formalarından biridir və şeir dilində də ən mühüm üslubi kateqoriyalardandır" (3,349).

Hər kim mayasını qərq edə suya,
O hardan xeyrini, şərini duya? (1,42).

Halaldan uzaşa, harama uya,
Belə sifət hər insana çətindi (1,13)

Yaxşı ol, yaman ol ixtiyarın var,
Naəlaca imdad elə varın var (1,43) .

Aşıq Şəmşirin şeirlərinin leksik xüsusiyyətlərinə nəzər yetirəndə burada etnoqrafik leksika da diqqəti cəlb edir. Bildiyimiz kimi etnoqrafik leksika müxtəlif sahələri özündə birləşdirir: yemək, geyim, ev-məişət adlarını, toxuculuq, zərgərlik, xalq təbabəti və s. Aşıq Şəmşir də gözəlləmələrində Azərbaycan qadınlarının istifadə etdikləri bəzək əşyalarını, geyimlərini ustalıqla təsvir etmişdir.

Bir təhrin tərlandı, bir təhrin laçın,
Telinə yaraşır zərdən araqçın.
Dağların kəkliyi ağca göyərçin,
Bənzəyir oxşarın marala, Zinyət (1, 100)

Nərgiz kalağaylı, lalə gərdəkli,
Al bəzəkli təzə gəlindi dağlar (1,106)

**TƏDQİQAT METODU**

Məqalədə XX əsr Azərbaycan aşiq poeziyasinin görkəmli nümayəndəsi Aşıq Şəmşirin zəngin yaradiciliğında leksik vahidlər, bədii təsvir və ifadə vasitələri tədqiqata cəlb edilmişdir.

**NƏTİCƏ**

Böyük el sənətkarı olan Aşıq Şəmşir aşıq şeirinin, demək olar, bütün janrlarına müraciət etmişdir. Xalq yaradıcılığından gələn bu əvəzsiz sənət nümunələri xəlqiliyi, dil sadəliyi, üslub gözəlliyi, forma əlvanlığı ilə seçilir. Azərbaycan şifahi xalq ədəbiyyatı tarixində şərəfli yer tutan Dədə Şəmşirin zəngin irsi ölkəmizin bir çox aşıqları üçün əsl sənətkar məktəbi olmuşdur. Aşıq Şəmşirin məhəbbət lirikasının əsasını saf və səmimi duyğular təşkil edir. Onun şeirlərində tərənnüm olunan məhəbbət insanı daxilən, mənən saflaşdıran məhəbbətdir. Yaradıcılığında təsvir olunan gözəlin mənəviyyatı yüksək qiymətləndirilmiş, sənətkar vəsf etdiyi gözəli hüsncamalda bənzərsiz saydığı kimi, ağılda da başqalarından üstün görmək istəyirdi

**ƏDƏBİYYAT SİYAHISI**

1.Aşıq Şəmşir. Seçilmiş əsərləri, Bakı, Avrasiya press,2006

2.Ədəbiyyatşünaslıq terminlər lüğəti/Tərtib edəni Mirəhmədov Ə. Bakı,Maarif, 1988

3.Hüseynov M. Dil və poeziya(1960-1980-ci illər Azərbaycan poeziyasının materialları əsasında) Bakı, Elm, 2008

4. Məmmədov Z. Klassik aşıq poeziyasının leksik-semantik xüsusiyyətləri.Bakı, Avropa,2006

5.Pirsultanlı (Paşayev) S. Aşıq Şəmşirin poetik aləminə səyahət, Bakı, Təknur, 2008

6. Təhmasib M.H Qocaman nəğməkar//Təhmasib M.H seçilmiş əsərləri 2 cilddə, I c.Tərtib edənlər Cəfərli M., Hacılı A., Şükürlü E.Bakı, Mürtəcim,2010

.

# MƏNFİ MƏNALI QİYMƏTLƏNDİRİCİ CÜMLƏLƏR

**NƏRMİN ƏKBƏROVA**
AMEA/Nəsimi adına Dilçilik İnstitutu
Filologiya/Müasir Azərbaycan dili
nermin.ekberova1@icloud.com
BAKI, AZƏRBAYCAN

**XÜLASƏ**

Aparılan tədqiqatda Azərbaycan dilində qiymətləndirici cümlələrin tədqiqi, bu cümlələrin işlənmə məqamları, onun növlərindən və eyni zamanda, sadə və mürəkkəb cümlə tiplərində qiymətləndiricilik xüsusiyyətlərindən bəhs edilmişdir. Məqalədə xüsusi ilə mənfi mənalı qiymətləndirici cümlələr və onların ifadə etdiyi mənalardan söz açılmışdır. Belə ki, dilimizdə qiymətləndirici cümlələrin tədqiqinə demək olar ki, az rast gəlinir. Bəzi elmi ədəbiyyatlarda bu cümlələlərin tədqiqinə yer verilsə də, geniş araşdırılma mövzusu olmamışdır. Dilçi alimlərdən bir çoxu qiymətləndirici cümlələrin varlığını qəbul etməmişdir. Onlara görə bu tip qiymətləndirmə səciyyəsi adlıq, vokativ, nida cümlələrində də özünü göstərir. Buna görə də qiymətləndirici cümlələr geniş tədqiqata cəlb edilməmişdir. Lakin biz bu tədqiqat işində qiymətləndirici cümlələrin müstəqil formada mövcudluğunu, digər cümlə növlərindən fərqli xüsusiyyətə malik olduğunu göstərməyə çalışmışıq. Məqalədə qiymətləndirici cümlələrin tiplərindən, onun təsnifatından söz açılsa da tədqiqatın əsas məqsədi mənfi mənalı qiymətləndirici cümlələrin semantik və strukutr cəhətlərindən bəhs etməkdir. Mənfi səciyyəli qiymətləndirici cümlələr ekspressiv və emosional elementləri ilə seçilir. Bu cümlə tiplərinə həm yazılı, həm də şifahi nitqdə rast gəlinə bilir. Lakin bədii əsərlərdə bu cümlələrə daha çox təsadüf olunur. Xüsusi ilə də dram əsərlərində mənfi mənalı qiymətləndirici cümlələr üstünlük təşkil edir. Qiymətləndirici cümlələr müraciət-çağırış vəzifəsində daha çox işlənir. Çağırış mövqeyində işlənərkən cümlənin önündə çağırış ədatlarının işlənməsinə təsadüf olunur. Tədqiqat işində müxtəlif bədii əsərlərdən seçilən nümunələr əsasında mənfi mənaqiymətləndirici cümlələrin həm struktur, həm də semantik cəhətləri ətraflı şəkildə araşdırılmışdır.

**AÇAR SÖZLƏR: Sintaksis, qiymətləndirici cümlələr, mənfi mənalı qiymətləndirici cümlələr.**

**SUMMARY**

In the conducted research, the study of evaluative sentences in the Azerbaijani language, the processing points of these sentences, their types, and at the same time, the features of evaluation in simple and complex sentence types were discussed. The article talks about evaluative sentences with a negative meaning and their meanings. Thus, the study of evaluative sentences in our language is almost rare. Although the study of these sentences is given place in some scientific literature, it has not been the subject of extensive research. Many linguists did not accept the existence of evaluative sentences. According to them, this type of evaluation feature is also manifested in nominative, vocative, and exclamatory sentences. Therefore, evaluative sentences have not been involved in extensive research. However, in this research, we have tried to show that evaluative sentences exist in an independent form and have different characteristics from other types of sentences. Although the article talks about the types of evaluative sentences and their classification, the main goal of the research is to talk about the semantic and structural aspects of evaluative sentences with a negative meaning. Negative evaluative sentences are distinguished by their expressive and emotional elements. These types of sentences can be found in both written and oral speech. However, these sentences are more common in literary works. Especially in dramatic works, evaluative sentences with a negative meaning prevail. Evaluative sentences are used more often in the appeal-challenge task. When used in the exclamatory position, exclamatory adverbs are used in front of the sentence. In the research work, both structural and semantic aspects of negative evaluative sentences were investigated in detail based on examples selected from various works of art.

**KEY WORDS: SYNTAX, EVALUATİVE SENTENCES, NEGATİVE EVALUATİVE SENTENCES**

## GİRİŞ

Azərbaycan dilinin sintaktik quruluşu öz müxtəlifliyi ilə seçilir. Sintaksisin əsas vahidi olan cümlə müxtəlif zamanlarda dilçi alimlər tərəfindən ətraflı şəkildə araşdırılmışdır. Fərqli cümlə tipləri, onların struktur və semantik xüsusiyyətləri geniş tədqiqata cəlb olunmuşdur. Qiymətləndirici cümlələr də öz fərqli strukturu və semantikası ilə seçilir. Bu cümlə tipinin geniş tədqiqinə dilçiliyimizdə az rast gəlinir. Bu baxımdan qiymətləndirici cümlələrin tədqiqi maraq doğurur. Bu t\dqiqat işinin əsas məqsədi mənfi mənalı qiymətləndirici cümlələrin həm şifahi, həm də yazılı nitqdə, elmi ədəbiyyatda müstəqil formada mövcudluğunun göstərməyə çalışmaqdır.

Qiymətləndirici cümlələr ifadə etdiyi fikir baxımından həm mənfi, həm müsbət mənalı ola bilir. Hətta dilimizdə neytral səciyyəli qiymətləndirici cümlə tiplərinə də rast gəlmək mümkündür. Mənfi mənalı qiymətləndirici cümlələr intonasiyası, ifadə etdiyi fikir baxımından nida, vokativ cümlələrə bənzəyir. Lakin bu oxşarlıq onları eyniləşdirmir. Belə ki, vokativ cümlələrdə ifadə olunan fikrin izahını vermək lazım gəlir, qiymətləndirici cümlələrdə isə buna ehtiyac duyulmur.

Firəngiz Ağayeva qeyd edir: "Qiymətləndirici cümlələri təşkil edən komponenetlər yalnız köməkçi sözlərdən ibarət ola bilməz, yəni bu kimi cümlələr əsas nitq hissələrinə məxsus sözlər işlənmədən mümkün deyildir. Qiymətləndirici cümlələrin başlıca xüsusiyyəti belədir ki, bunlar həm ayrılıqda işlənə bilər, həm də daha mürəkkəb sintaktik vahidin tərkibində başqa cümlələrlə yanaşı şəkildə özünü göstərə bilər." ( Ağayeva, 1983).

Mənfi mənalı qiymətləndirici cümlələr müsbət mənalılarda kəmiyyətcə üstünlük təşkil edir. Bu cümlələrə həm qadın, həm də kişi nitqində rast gəlinir. Kişi nitqində istifadə olunan mənfi mənalı qiymətləndirici cümlələr daha çox qısa, tək sözlə ifadə olunması ilə seçilir. Lakin qadın nitqində bu cümlələr təsviredici və izahlı formada olur. Bu cümlələr nominativ və kommunikativ funksiyaya malik olurlar. Nominativ xarakterli cümlələrdə məzmun və intonasiya, struktur və semantika bir-biri ilə iç-içə olur. Bu cümlələr təktərkibli, birnüvəli cümlələrdir. Bu cümlələr işləndikləri mətndən asılı olmur, sərbəst kontekstdən kənar müstəqil məna ifadə edə, bütün qrammatik forma və üslublarda çıxış edə bilərlər. Mənfi mənalı qiymətləndirici cümlələr qısa, bir sözdən və ya sadə söz birləşmələrindən ibarət olsa da, bu cümlələr də ifadə olunan fikir heç də geniş, mürəkkəb strukturlu cümlələrdən geri qalmır. Hər hansı sadə cümlədə bir şəxsin və ya obyektin xüsusiyyəti bir neçə söz və ya söz birləşməsi ilə ifadə olunaraq çatdırılırsa qiymətləndirici cümlələrdə də eyni fikir qısa və lakonik şəkildə çatdırıla bilər.Məsələn,o çox zalımdır. Cümləsi ilə müəyyən intonasiya ilə ifadə olunan: Zalım! Qiymətləndirici cümləsi eyni mənanı ifadə edir.Bəlkə də intonasiya və emosiya baxımından bu cümlənin ifadə gücü daha da artıqdır. Bu yalnız mənfi qiymətləndirici cümlələrdə deyil,eyni zamanda müsbət məzmunlu qiymətləndirici cümlələrdə də eynidir.

Qiymətləndirici cümlədə daxili və xarici sintaktik əlaqələr mövcuddur. Bu cümlənin öz daxilindədirsə daxili sintaktik əlaqə, digər cümlə və mürəkkəb konstruksiyalarda isə xarici sintaktik əlaqə hesab olunur.

Vicdansız köpək!

Yaltaq kaftar!

Bu cümlələrdəki sözlər arasındakı əlaqə daxili əlaqədir.Əgər bu cümlələr sadə və mürəkkəb cümlənin daxilində işlənər və digər sözlərlə əlaqəyə girərsə bu zaman xarici əlaqə ilə əlaqələnir.

Bir də görürsən qoca kaftar üzümə baxıb hırıldayır!

Nərgiz Hacıyeva qiymətləndirici cümləsləri vokativ cümlələrin ikinci növü olaraq qeyd etmişdir. O yazır: " Vokativ cümlələrin ikinci növünü qiymətləndirmə xarakterli cümlələr təşkil edir. Qeyd edək ki, dilçilik əsərlərində vokativ və qiymətləndirici cümlələr fərqləndirilir. Lakin vokativ və qiymətləndirici cümləsləri ayrı-ayrı cümlə növü kimi öyrənən müəllif bəzən onları eyniləşdiri." (Hacıyeva, 2007).

" Bizə elə gəlir ki, F.Ağayevanın " qiymətləndirici cümlə" adı altında öyrəndiyi konstruksiyaların bir qismi adlıq, digər bir qismi isə vokativ cümlə kimi tədqiq edilməlidir." (Hacıyeva, 2007).

Mənfi qiymətləndirici cümlələrdə subyektin obyektə münasibəti (emosional, rasional ) əsasdır.Bu cümlələrin struktur və semantikası onların tədqiqinə imkan verir.Bu cümlələrdə predmet istənilən hadisə və şəxs ola bilər.Buraya insan, şəxs, obyekt, subyekt, hadisə və s. daxil edilə bilər. Həm mənfi, həm də müsbət qiymətləndirmə məzmunu ,əsasən, mücərrəd isimlərlə qarşıya ötürülür. Burada əlamət və keyfiyyət məzmunlu sifətlər üstünlük təşkil edir. Lakin qiymətləndirmə intonasiya vasitəsilə də ötürülə bilər. Bu cümlələr müxtəsər və geniş ola bilir.Müxtəsər cümlələr bir sözlə ifadə olunur:

Vicdansız! Qanmaz! Qoyun! Ağciyər! Və s. Geniş qiymətləndirici cümlələr isə söz birləşmələri ilə ifadə olunur: Qanına bələnmiş! Üzü daşdara dönmüş! Gözü çıxmış! Heyvanın biri! İtin balası! Anası göyçək! və s.

Müxtəsər qiymətlənlirici cümlələrin hamısında daxili sintaktik əlaqə mövcuddur. Əslində bu cümlələrdən danışarkən onun sintaksik əlaqəsinin yada salınmasının bir əhəmiyyəti yoxdur, çünki bu cümlələr yalnız birkomponentli olur və onların əlaqəyə girməsi üçün başqa bir komponent yoxdur.Belə birkomonentli qiymətləndirici cümlələrin nüvə komponenti müxtəlif nitq hissələri ilə ifadə oluna bilir.Burada qiymətləndiricilik təyinedici və ya müəyyən keyfiyyətə və əlamətə qiymət ,münasibət bildirilməsi ilə bağlıdır.

F.M.Ağayeva qiymətləndirici cümlələri tema baxımından iki qrupa ayırır: Tema baxımından qiymətləndirici cümlələr iki yerə bölünür:

a) Şəxsi qiymətləndirməyə xidmət edənlər.

b) Qeyri-şəxsi qiymətləndirməyə xidmət edənlər.

Bu sonuncuların bir qrupunu da söyləmləri qiymətləndirmə və ya sitatları qiymətləndirmə təşkil edir. Adətən belə cümlələr söyləmin yersiz deyildiyini və ya lap yerinə düşdüyünü göstərmək məqsədi izləyir: Əla! Əcəb! Çox gözəl! Çox pakizə! (Ağayeva, 1985) .

Mənfi mənalı qiymətləndirici cümlələr daha çox yayılmışdır. Bu cümlələr ifadə etdiyi fikir baxımında belə təsnif etmək olar:

1. Daxili – mənəvi xüsusiyyətləri- keyfiyyətləri ifadə etmək məqsədi ilə işlənənlər: Şeytan! İblis! Cahil! Əxlaqsız! Paxıl ! Sərsəm! Arsız! Gülünc! və s.

2. Mücərrəd məna bildirən sözlər hesabına yaranan cümlələr: Dəhşət! Müsibət! Qiyamət! Fəlakət!

3. Mənfi qarşılanan peşə, sənət, vəzifə adları ilə ifadə olunan cümlələr: Molla! Hambal! Nökər! Mürdəşir! Payyığan!

4. Heyvan və quş isimləri mənfi mənada işləndikdə: Çaqqal! Küçük! Qoduq! Tülkü! Canavar! Eşşək! Aranqutan! Qorilla!

5. Bəzi etnonimlər mənfi qiymətləndirici cümlə funksiyasında işləndikdə: Malakan! Erməni! Cuhus! Yəhudi! Fars!

Bədii mətnlərdə mənfi mənalı qiymətləndirici cümlələrin işlənməsi:

Bəs Heydər görünür,səhvdir.Xain!

Bədbəxt Heydər! (Nəriman Nərimanov)

Bir buna bax! Aldanmış,Qansız!

Bimürvət! (Cəfər Cabbarlı)

-Angel, mən sənin düşündüyün qədər düşüb itmiş deyiləm.

-Angel: Axmaq!

Ağa Məhəmməd şah Qacar qəzəblə dedi: Namərbud!

Bütün camaatı qırdın. Cəllad!

Aman! Ayaqladı müqəddəs dini,

Xalq düşməni! Vətən xaini! ( Səməd Vurğun)

- Mən o başı yox etdirəcəm.

-Cəllad! ( N. Nərimanov)

Bunu niyə sındırdın? Əli qurumuş!

Tahir yerə sərili qalsa da, dilini dinc qoymurdu:-Alçaqlar! Yaramazlar! Qorxaqlar!

Hər şey onların ucbatından oldu. Millətin qanını soran zəlillər. (İ.Hümbətov)

Cəmil başını əlləri arasına alıb pıçıldayırdı: - Ax, başı bəlalı millət. (A. Babayev)

Nəhayət kütlə yarıldı, səslər kəsildi, zabit italyanca bağırdı: Gic qoyunlar! ( Ənvər Məmmədxanlı)

Gülmalı başını aşağı salıb mızıldandı: Səfehin biri! (C. Kəlayev)

Fəraməz ona acıqlandı: Utanmazın biri. (N. Abdullayev)

Niyazi onun dalınca xeyli baxıb gileyləndi: Allahın yazığı! (A.Babayev)

Musa təəssüflə başını yellədi: Ay xar olmuş! (Ə.Musayev)

Atandan artıqmı bu dövlətə qulluq edəcəkdin?

Tamahkar! ( N.Nərimanov)

O, qəzəblə dedi: Cəhənnəmdən gəlmiş,Cəllad!

Nümunələrdən də göründüyü kimi mənfi mənalı qiymətləndirici cümlələr kəmiyyət etibarilə daha çoxluq təşkil edir.Söyüş səciyyəli bütün isimlər qiymətləndiricilik xüsusiyyətinə malikdir. Hətta buraya söz və söz birləşməsi şəklində formalaşan qarğışları da aid etmək olar. Bununla yanaşı hər bir sifət də mənfi və ya müsbət qiymətləndirici funksiya daşıya bilir. Bu sözlər qiymətləndirici tema kimi öncəki cümlənin ümumi mənasını, situasiya, hal və əşya kimi ifadə bilər. Məsələn:

Aranqutan! Əntər!

Gözü çıxmış! Cəhənnəmlik olmuş! Və s.

Tənbəl! Zalım! Və s.

Bu sözlər qiymətləndirici tema kimi öncəki cümlənin ümumi mənasını, situasiya, hal və əşya kimi ifadə ed

Bu cümlələr yalnız sadə sözlərdən ibarət olmur. Strukturunun fərqliliyi ilə də seçilir.Lakin müsbət mənalı qiymətləndirici cümlələrdə bu cəhət yoxdur. Mənfi qiymətləndirici cümlələr sözdüzəldici şəkilçilər hesabına həm düzəltmə ola bilir, həm də bu cümlələr ismi birləşmələrin tərkibində çıxış edə bilir. -sız, -siz, -suz, -süz şəkilçisi ilə düzələn formalara daha işləkdir: Qanacaqsız! Nəzakətsiz! Huşsuz! Vicdansız! Mərhəmətsiz! İnsafsız! Yurdsuz! Önşəkilçilər hesabına yaranan mənfi qiymətləndirici cümlələr də mövcuddur.: Binamus! Nanəcib! Bisavad! Laməkan! Nadürüst! Bivec! Naxələf! Biqeyrət! İnkar şəkilçiçi ilə yaranan mənfi qiymətləndirici cümlələr də var: Qanmaz! Laldinməz!

Mürəkkəb sözlərin bir çoxu mənfi qiymətləndirici cümlələrin ifadə vasitəsi ola bilir: Kütbeyin: Qaraqabaq! Şorgöz! Qəlbiqara! Qarabəxt! Ağırayaq!

Qiymətləndirici cümlələr söz birləşməsi formasında da ola bilir: Qara geymiş! Başına daş düşmüş! Qara yerə girmiş! Bəxti qara! Heyvan balası! Allah vurmuş! Gözü çıxmış! Günü qara olmuş!

Ümumilikdə tədqiqat işinin strukturu aşağıdakı hissələrdən ibarətdir:

1. Qiymətləndirici cümlələrin tədqiqi.
2. Mənfi mənalı qiymətləndirici cümlələr və onların təsnifi.
3. Tədqiqat işinin müasir Azərbaycan dilində mövcudluğu və əhəmiyyəti.

**TƏDQİQAT METODU**

Tədqiqat işinin həyata keçirilməsində təsviri və müqayisəli metoddan istifadə olunmuşdur. Mənfi mənalı qiymətləndirici cümlələrin digər cümlə növlərindən fərqləndirilməsi, onun məna və sintaktik cəhətdən izahı üçün bu metodlstifadə məqsədəuyğun hesab olunmuşdur.Seçilmiş nümunələr təsnif edilmiş, tədqiqata cəl olunmuş və bu cümlələrin müasir Azərbaycan dilçiliyində yeri və əhəmiyyəti vurğulanmışdır. Mənfi mənalı qiymətləndirici cümlələr həm emosional fikir ifadə etmə, ifadə vasitələrinin genişliyi baxımından, həm də struktur etibarilə fərqlilik göstərdiyi üçün düşünürük ki, bu cümlələrin tədqiqi lazımlıdır. Digər cümlələrlə oxşar keyfiyyətlərə malik olmasına baxmayaraq, qiymətləndirici cümlələr müstəqil hadisə kimi özünü göstərir.

**NƏTİCƏ**

Məqalədə aparılan araşdırılmadan belə nəticəyə gəlmək olar ki, mənfi qiymətləndirici cümlələr həm danışıq dilində, həm də yazılı nitqdə müsbət mənalı qiymətləndirici cümlələrdən üstünlük təşkil edirlər.Bu cümlələr dilçilikdə müstəqil şəkildə mövcuddur və digər bütün sintaktik vahidlərdən seçilirlər. Bu cümlələr bütün dil səviyyəsində özünü göstərə bilir.Bu cümlələrdə intonasiya çox vacibdir. Yazılı nitqdə bu cümlələr az işlənsə də bu cümlələrin şifahi nitqdə və bədii əsərlərdə fəal iştirakını danmaq olmaz.

6. **ƏDƏBİYYAT SİYAHISI**

1. Ağayeva, F. ( 1983). Azərbaycan danışıq dilində nominativ konstruksiyalar. S. M. Kirov adına Azərbaycanm Dovlət Universitetinin nəşri. Bakı. 84.
2. Ağayeva, F. (1985). Azərbaycan danışıq dili. Bakı. 192.
3. Hacıyeva, N. (2007). Azərbaycan dilində vokativlər. Bakı. Maarif. 192.
4. Kazımov, B. (2007). Müasir Azərbaycan dili. Sintaksis. Bakı. Təhsil. 496.
5. Xəlilov, B. (2017). Müasir Azərbaycan dili. Bakı. Adiloğlu. 428.

# "DİVANİ LÜĞƏT-İT-TÜRK" ƏSƏRİNDƏ İSMİN KƏMİYYƏT KATEQORİYASININ MÜASİR AZƏRBAYCAN DİLİ İLƏ ORTAQ VƏ FƏRQLİ CƏHƏDLƏRİ

**SƏBİNƏ ƏLİYEVA**
AMEA/Nəsimi adına Dilçilik İnstitutu
Filologiya/Müasir Azərbaycan dili
sebineeliyeva2014@mail.ru
BAKI, AZƏRBAYCAN

**XÜLASƏ**

Dilçilik tarixində özünə məxsus yeri olan Mahmud Kaşğarinin "Divani lüğət-it-türk" əsəri üzərində uzun illər boyu bir çox tədqiqatçılar müxtəlif məqamlara toxunaraq tədqiqatlar aparmışlardır. Əsərin türkcənin bizə məlum olan ən qədim lüğəti, ensiklopediyası, antologiyası, əhəmiyyətli, eyni zamanda qiymətli toplu olması mütləq qeyd edilməlidir. "Divan" universal bir əsər olaraq bütün dil, qrup və ləhcələrin fövqündə dayanan və onların arasında fərq qoymadan istisnasız olaraq hər birini əhatə edən və bununla özündə cəmləşdirən olduqca zəngin bir xəzinədir. Çağdaş Azərbaycan dilinin tarixi qatlarının öyrənilməsi baxımından da böyük əhəmiyyət daşıyan "Divan"da sadə isimlər, ismin kateqoriyaları hər zaman aktuallığını qoruyan məsələlərdəndir. Böyük türkoloq M. Kaşğarinin "Divan"ında ismlərin lüğəvi məna qrupları, ona aid qrammatik kateqoriyaları, quruluşca məna növləri zəngin nümunə və izahlarla əks olunmuşdur. Tədqiqat işimizdə "Divan" da yer alan sadə isimlərin müasir Azərbaycan dilindəki qarşılıqları, ismin kateqoriyaları xüsusilə, kəmiyyət kateqoriyası və s. kimi mövzulara yer vermişik. Tədqiqat işimizdə daha əvvəl tədqiqata cəlb olunmayan isimlər və onların müasir qarşılıqları araşdırılaraq bu sözlərin müasir dilimizin inkişaf yolunda məruz qaldıqları dəyişikliklər müqayisə edilərək təqdim olunmuşdur. Əldə etdiyimiz nəticələr elmi yenilikləri və dilçilik sahəsindəki üstünlükləri baxımından diqqətə layiqdir. "Divan"da ismin kəmiyyət kateqoriyasının geniş və aydın mənzərəsi yaradılıb. Araşdırmalarımızdan belə bir nəticəyə gələ bilərik ki, "Divani lüğət-it-türk" əsərində istifadə olunan ismin kəmiyyət kateqoriyası demək olar ki, çağdaş Azərbaycan dilindən əsaslı şəkildə fərqlənmir.

**AÇAR SÖZLƏR: "Divani lüğət-it-türk", sadə isimlər, kəmiyyət kateqoriyası**

**SUMMARY**

Mahmud Kashgari's "Diwani lughat-it-Turk", which has its own place in the history of linguistics, has been studied by many researchers for many years, touching on various points. It must be noted that the work is the oldest dictionary, encyclopedia, anthology, important and at the same time valuable collection of Turkish known to us. "Diwan" as a universal work is an extremely rich treasure that stands above all languages, groups and dialects and covers and includes each of them without exception. In Diwan, which is of great importance for the study of the historical layers of the contemporary Azerbaijani language, simple nouns and categories of nouns are among the issues that remain relevant at all times. In the "Diwan" of the great Turkologist M. Kashgari, the lexical meaning groups of nouns, their grammatical categories, structural meaning types are reflected with rich examples and explanations. In our research work, the counterparts of the simple nouns in "Diwan" in the modern Azerbaijani language, the categories of the noun in particular, the category of quantity, etc. We have included topics such as In our research work, the nouns that were not involved in the research before and their modern equivalents were examined and the changes that these words underwent in the development of our modern language were compared and presented. Our results deserve attention in terms of their scientific innovations and advantages in the field of linguistics. In "Diwan" a broad and clear picture of the quantitative category of the noun has been created. From our research, we can come to the conclusion that the quantitative category of the noun used in the "Diwani lughat-it-Turk" is almost not fundamentally different from the modern Azerbaijani language.

**KEY WORDS: "Divani lughat-it-Turk", simple nouns, quantity category**

## GİRİŞ

Azərbaycan dilində say bir sistem kimi xüsusi yer tutur. Saylar geniş mənada kəmiyyət anlayışı ifadə edir. Kəmiyyət anlayışının, say məfhumunun ifadəsi bir sıra məsələlərlə bağlıdır. Saylar da kəmiyyət kateqoriyası kimi insanın praktik, həyati ehtiyaclarından yaranmışdır. Dünyanın müxtəlif xalqlarının dövrümüzə gəlib çıxmış abidələrində-qəbir daşlarında, pul üzərində, daş-qaşlar üzərində, müxtəlif qayaüstü rəsmlərdə və s. insanların say, kəmiyyət anlayışını ifadə edən müxtəlif elementlərə rast gəlinib. Məlum olur ki, insanlar yüz min il, bəlkə daha da əvvəl saymağa başlamışlar. Müasir say sistemindən əsaslı şəkildə fərqlənən bu saylar, onların işlənmə prinsipləri insanların ilkin riyazi təfəkkürü ilə bağlı olmuşdur. Güman olunur ki, ilkin saylar "bir" və "iki" olmuşdur. Bundan artıq kəmiyyəti ifadə etmək üçün isə sadəcə olaraq "çox" sözündən istifadə olunmuşdur. Daha sonra insanlar tədricən beşə qədər saymış, iki beşi birləşdirərək də ona kimi hesablaya bilmişlər. Bu ədə anlayışlarının, say məfhumunun yaranmasında isə insanın əli və hər əlindəki beş barmağı misilsiz rol oynamışdır. Şübhəsiz ki, kəmiyyət anlayışının, sayların tarixi yalnız riyaziyyatla deyil, dil ilə də bağlıdır. Riyaziyyat elmi sayların toplanması, çıxılması, vurulması və bölünməsi və s. kimi əməliyyatları öyrənirsə, dilçilik say anlayışının dildəki ifadəsini, onun qrammatik, leksik - semantik xüsusiyyətlərini araşdırır. Azərbaycan dilində kəmiyyət anlayışını ifadə etmək üçün birdən trilyona qədər bütün ədədləri adlandırmaq üçün dilimizin lüğət fonduna daxil olan iyirmi üç müxtəlif sözdən istifadə olunur. Bunlar aşağıdakılardır: Bir, iki, üç, dörd, beş, altı, yeddi, səkkiz, doqquz, on, iyirmi, otuz, qırx, əlli, altmış, yetmiş, səksən (həştad), doxsan, yüz, min, milyon, milyard, trilyon. Trilyona qədər olan qalan bütün ədədlərin adları isə bu iyirmi üç sözdən düzəldilir. Az sözlə -23 sözlə çox böyük miqdarda say sistemi düzəldilir və müxtəlif kəmiyyət anlayışları ifadə olunur. Məsələn: on beş, iyirmi altı, yüz doxsan doqquz, yeddi yüz səksən altı, min doqquz yüz doxsan beş, bir milyon altmış səkkiz min yüz əlli iki və s. Qeyd etdiyimiz iyirmi üç saydan yalnız üçü ( milyon, milyard və trilyon) Avropa mənşəli, qalan iyirmisi isə türk mənşəli olub, dilimizin qədim sözlərindəndir.

Türk dillərində vaxtilə say mənasında işlənən, ancaq müasir dilimizdə arxaik sözlər qrupuna keçən " tümən " sözü olmuşdur. Bu söz monqol mənşəli söz olub on min və daha artıq kəmiyyəti bildirmək üçün istifadə olunur. Bu söz Azərbaycan dilində on min mənasında da işlənildiyi kimi, on manat mənasında da özünə yer tapmışdır. Azərbaycan atalar sözlərində də bu sözə bir neçə nümunədə təsadüf olunmuşdur :

Qazan daşanda çömçənin biri bir tümənə gedər sənə qurbandır, amma çəpişin biri bir tümənə(Bəydilli,2004).

Sayların mənşəyi də diqqəti cəlb edən məsələlərdəndir. Dilimizdə onluq say sistemində altmışa qədər heç bir xüsusi qayda nəzərə çarpmır. On, iyirmi, otuz, qırx, əlli sayları fonetik cəhətdən bir- birindən tam fərqlənir və heç bir sistemə tabe deyil. Daha sonra gələn altmış, yetmiş saylarının isə -mış, -miş şəkilçilərinin köməyilə eyni qayda üzrə qurulduğu nəzərə çarpır. Lakin bu qayda sonra gələn səksən, doxsan saylarında pozulur. Səksən, doxsan sayları da başqa bir qayda ilə -san, -sən şəkilçilərinin köməyilə ilə düzəlmişdir. "Səksən sayı Azərbaycanın İran sərhədlərindən uzaqda, fars dili təsirinə az məruz qalan yerlərdə qorunub saxlanmışdır. Bu xüsusiyyətini bugün Azərbaycanın şimal və cənub qrupu dialektlərində müşahidə edirik. Fars dili təsirinə məruz qalmış və öz dövrünə görə az- çox ticarət mərkəzi olan yerlərdə isə həştad sözü daha çox yayılmış, həm danışıq, həm də ədəbi yazı dilində bir söz kimi işlədilmişdir. Azərbaycanın Şərq və cənub qrupu dialektlərində bugün də həştad sözü həyatiliyini göstərir (Mirzəzadə,1962). Mətbuat, bədii əsərlər, dərsliklər, radio və televiziya verilişləri göstərir ki, üstünlük səksən sözünə verilir və ədəbi dil baxımından bu söz daha düzgün hesab olunur. Səksən sözünün tərkibində səkkiz və on sözlərinin əlamətlərinin olması sübut edir ki, ədəbi dildə səksən sözünün işlənməsi daha məqsədəuyğundur.

Azərbaycan atalar sözlərində bu paralellərdən səksən sayı işlənmişdir. Səksən, doxsan, bir gün yoxsan (Bəydilli,2004).

Dildə ümumiyyətlə, kəmiyyət, miqdar anlayışını ifadə edən sözlər də vardır ki, bunlar say adlanan nitq hissəsini təşkil edir. Əslində belə sözlərin miqdarı dilimizdəki digər nitq hissələrinə - isimlərə, sifətlərə, feillərə mənsub olan sözlərin miqdarından xeyli azdır; lakin bu az miqdarda olan sözlərin ifadə etdiyi kəmiyyət son dərəcə çoxdur. Əlbəttə, müxtəlif miqdar anlayışını ifadə etmək üçün bu məhdud miqdarda olan sözlərdən xüsusi qrammatik vasitə və qaydalar əsasında geniş dairədə istifadə olunur.

Bəzən belə düşünürlər ki, saylar ümumiyyətlə, konkret miqdarı bildirən sözlərdir və bu növ sözlərin heç bir əlavə məna rəngi, ekspressiv çalarlığı ola bilməz. Belə sözlər, əsasən, riyazi vahidlərin ifadəçiləri olaraq elmi üslub ünsürləridir və ümumi danışıqda, yaxud başqa hər hansı bir üslubda da belə işlədilir.

Deməli, sayların üslubi imkanları olmadığı kimi, üslubi məqam və çalarlıqları da yoxdur. Buna görə də üslubiyyatda xüsusi olaraq saylardan bəhs açmaq da zəruri deyildir. Bu fikirləri əsas götürən bir sıra dilçi və ya ədəbiyyatçı - üslubiyyatçılar zahirən doğruya oxşayan belə mülahizələrə üstünlük verdiklərinə görə yazdıqları üslubiyyat və poetika kitablarında da sayların üslubi məna və məqamlarından xüsusi olaraq bəhs etməmişlər. Sayların müxtəlif üslubi məqam və çalarlıqlarını "Azərbaycan Atalar sözləri"ndə izləyək.

I.Saylar içərisində, demək olar ki, ən çox üslubi məqam və çalarlıqlarda işlənən vahid bir sayıdır. Müasir Azərbaycan dilində bir sayının başlıca olaraq aşağıdakı üslubi məqam və çalarlıqları vardır:

1.Azərbaycan dilində bir sözü hər şeydən əvvəl sayların ilk vahididir. Həmçinin bu zaman bir sözü əşyanın konkret kəmiyyətini, miqdarını bildirməyə xidmət edir.

Bir sayı əsas mənasına uyğun olaraq miqdar bildirir; riyaziyyatda və ümumiyyətlə, elmi üslubda heç bir ekspressiv çalarlıq bildirmədən mütləq ədəd olaraq təklikdə, ya da hər hansı bir əşyanın miqdar təyini kimi hər cür üslubi sahədə isimlə yanaşı işlənir.

Aclıq bir il gedər, minnət min il
Allah bir, söz bir .
Ata oğluna bir bağ verdi, oğul ataya bir salxım qıymadı.
Bir ayaq sən gəl ki, iki ayaq mən gəlim
Bir buğda əkməsən, min buğda biçməzsən
Bir çılpağı yüz cübbəli soya bilməz
Bir dana bir naxırı korlar
Bir daşla divar olmaz
Bir əldə iki qarpız tutmaq olmaz
Bir göz iki gözün gördüyün görə bilməz
Bir gül ilə bahar olmaz
Bir igidin payı iki igidi ac qoyar (Bəydilli,2004).

2. Bir sözü birinci növ təyini söz birləşməsinin tərəfləri arasında işlənərkən öz əsas mənasını itirərək qeyri-müəyyənlik bildirir. Bu zaman təyinin mənasını qüvvətləndirərək, əşyanın təyinlik dərəcəsini artırır. Beləliklə də qeyri-müəyyənlik və ümumilik məzmunu yaradır. Dilimizdə bir sözünün bu məqamda işlənməsinə daha çox rast gəlinir :

Bir ağıllı baş min başı saxlar
Bir çuval qızıl borcun olsun, bir çuval buğda borcun olmasın
Dost məni ansın bir çürük qozla
Dost məni yad eyləsin bir güleyşə nar ilə
Keçəl qızın nəyi var, dəmirdən bir darağı (Bəydilli,2004)

3. Bir sözü heç bir şəkilçi qəbul etmədən eyni sözünə - əvəzliyinə yaxın bir mənada işlənir. Bu zaman bəzən iş, hərəkətin eyni yerdə icrasını, bəzən də əşyaların bir - birinə oxşarlığını, bir - biri ilə eyni olduğunu bildirir:

Atlı ilə atsız bir deyil
Barmağın hansını kəssən, ağrısı birdir
Başını keçəl eləmə; hər keçəlin taleyi bir olmaz
Bir ağacda gül də bitər, tikan da
Bir küllükdə iki xoruz banlamaz
Bir qazanda iki kəllə qaynanam (Bəydilli,2004)

4. Bir sayı əlamətcə təyin etmək, həm də çoxaltma, gücləndirmək çalarlığı ifadə etmək üçün isimlərin yanında işlənir:

Ağzımı bir aş yandırsın aş ola;
başımı bir daş yarsın ki, daş ola

5. Bir sözü "də" bağlayıcısı ilə işlənərək iş, hal və hərəkətin ikinci dəfə, yenidən icra olunmasını bildirir:

Arxa su gəlib, güman var bir də gəlsin
Bir almağın bir verməyi də var
Bir də gəlin ollam, oturduğumu, durduğumu billəm
Bir də qatırçının qatırın hürkütmə
Bir gördün namərdi, bir də görsən namərdsən (Bəydilli,2004)

Bir sözü ədatla sinonimlik təşkil edərək, əsasən, təkid, qəzəb, təəccüb, arzu və xahiş və s. mənalar ifadə edir.

Bir arxa ki su gəlib, güman var bir də gələ
Bir çıraq ki haqdan yana, yağı neylər, yağı neylər?! Bir çulum var ataram, harda gəldi yataram Bir doğru ki yalana oxşadı, onu söyləmə (Bəydilli,2004) 7. Bir, bir də sözləri bağlayıcı yerində işlənərək, əsasən, həm, həm də, bəzən də gah, gah da bağlayıcılarının mənasına uyğun gəlir və əlavə bölgü bildirir.

Bir ac güləyən olar, bir də yalavac
Bir ac qudurğan olar, bir də yalavac
Bir biləndən qorx, biləndən qorx, bir də bilməzdən (Bəydilli,2004) Bir sözü müxtəlif şəkilçi və sözlərlə işlənərək dilimizdə söz yaradıcılığında mühüm rol oynayır. Həmin sözün vasitəsilə müxtəlif mənalı düzəltmə və mürəkkəb sözlər, eyni zamanda ifadələr yaranır. Məsələn : Birlik, bircə, birər, birdən, birgə, birinci, birləşmək, bildir qapıbir, canbir, dənəbir, arabir, birbaş, minbir, əlbirlik, biraylıq, birdəfəlik, birgəlik, biryolluq, birmənalı, birhüceyrəli, canbirqəlb, birbəbir, hərdənbir, hərdən - birdən, bir-bir, bircə - bircə, birər -birər, birdən -birə, iki - bir, üç - bir, birə - yüz, birə -min, bir-iki, bir sıra, bir çox, bir az, bir qədər, bir neçə, bu biri, o biri, hər biri, hər bir və s. (Xəlilov,1978)].

Arif olana bircə işarə də bəsdir
Bildir ölüb boz eşşək, bu gəlin ağlayaq
Bildir yedim bir incir, indi də qarnım incir
Birlik harada, dirilik orada
Birlik olmayan yerdə dirilik olmaz( Bəydilli,2004)

II. Miqdar saylarının hamısı bütün üslublarda işlənir, lakin elmi üslubda daha çox mücərrəd miqdar adları kimi işlənir. Miqdar saylarının bir sıra xüsusiyyətləri vardır ki, sayların üslubi məqamlarını qismən zənginləşdirir və çox əlverişli vasitələr kimi müxtəlif çalarlıqda istifadə edilir. Bunlardan başlıcası aşağıdakılardır :

1. Müəyyən miqdar dairəsində mübaliğəli çalarlıqda qeyri-müəyyənlik ifadəsi üçün, xüsusən yüz, min və milyon saylarından aşağıdakı qaydalarda istifadə olunur. Bu yuvarlaq saylar xüsusi intonasiya ilə təyin vəzifəsində işlənir. Lakin sayın bildirdiyi dəqiq miqdarı yox, həmin miqdara yaxın - bir qədər az və ya bir qədər çox miqdarı bir az mübaliğə çalarlığı ilə ifadə edir. Məsələn; Adam min acını unudar, bir şirinin xatirinə Bir dirhəm min eybi örtər . Bir qulğuna min qırğına səbəbdir (Bəydilli,2004)

2. Miqdar sayları bütün hal, nisbət, şəxs və xəbər şəkilçilərini qəbul edərək müxtəlif üslubi imkanlar kəsb edir və cümlədə müxtəlif üzvlər vəzifəsində işlənir. Bu da sayların substantivləşməsi prosesidir ki, atalar sözlərində da belə saylara kifayət qədər rast gəlinir.

**TƏDQIQAT METODU**

Azərbaycan atalar sözlərini tədqiq edərkən, əsasən, təsviri metoddan istifadə olunmuşdur

**NƏTICƏ**

Azərbaycan dilindəki sayların nitq vahidləri kimi müxtəlif məqamlarda, rəngarəng mənalarda, ekspressivlik -emosionallıq çakarlıqlarında işlədilməsi faktları, müxtəlif üslublarda məqsədəuyğun istifadə nümunələri sübut edir ki, digər nitq hissələri kimi sayların da üslubi imkanları mövcuddur və bu imkanların məqdadəuyğunluq nöqteyi-nəzərindən əlverişli üslubi məqam və çalarlıqlar üçün istifadə olunur. Buna görə də sayların üslubi imkanlarından və çalarlıq məqamlardan ayrıca bəhs edilməlidir. Sayların da üslubi imkan, məqam və çalarlıqları, digər nitq hissələrində olduğu kimi, sinonimlik, emosionallıq-ekspressivlik və üslubi təhkimlik kimi başlıca üç cəhətlə bağlıdır və bu cəhətlər də bir - biri ilə üzvi surətdə bağlıdır. Buna görə də hər hansı sayın üslubi imkan, məqam və çalarlıqları məhz bu cəhətlərlə bağlı surətdə nəzərdən keçirilməlidir. .

**ƏDƏBIYYAT SIYAHISI**

1.Atalar sözü/ tərtib edəni C.Bəydilli. Bakı, Öndər nəşriyyatı, 263 s.(27-240). 2.Əfəndiyev, P.(2013) Azərbaycan şifahi xalq ədəbiyyatı, Bakı, (134). 3.Əhmədova,X.S. (2011)Müxtəlif sistemli dillərdə atalar sözlərinin linqvistik təhlili və tərcümə məsələləri, dis. Bakı,. 4.Xəlilov, R.Y.(1978) Saylar, Bakı, (24). 5.Mirzəzadə, H.(1962) Azərbaycan dilinin tarixi morfologiyası, Bakı, (26-29).

# AZƏRBAYCAN ƏDƏBİYYATI

## ƏDƏBIYYATDA QARABAĞIN ZƏFƏR DÖNÜŞÜ

**NAZLI ƏHMƏDOVA**
Bakı Slavyan Universiteti
Magistratura/ Azərbaycan
*Naza.ahmedova1313@gmail.com*
BAKI, AZƏRBAYCAN

**XÜLASƏ**

Məqalədə Qarabağ mövzusunun ədəbiyyatımızda mövqeyi təhlil olunur. Qarabağ mövzusunda yazılan istər müharibə, istərsə də zəfər xarakterli əsərlər müqayisə olunaraq göstərilmişdir. Nümunə gətirilən əsərlərin ideya-bədii xüsusiyyətləri təhlil süzgəcindən keçirilmiş və ədəbiyyatımızda bu mövzunun aktuallığı göz önünə gətirilmişdir. Müharibə mövzulu əsərlərin zəfər motivlərini özündə əks etdirən əsərlər ilə müqayisəli şəkildə təhlil edilməsi ədəbiyyat sahəsində müstəsna əhəmiyyət kəsb edir. Tarixi unutmayan görkəmli yazıçı və şairlərimiz də bu layiqli vəzifəni qarşılarına məqsəd qoyaraq dəyərli sənət nümunələri yaratmışlar. A.Abbasın "Dolu", N.Həsənzadənin "Zəfər yolu", Elçinin "Bayraqdar", H. Mirələmov "Xəcalət", S.Vurğunun "Ananın öyüdü", Z. Yaqub "O qızın göz yaşları", Qabilin "Çadırlara alışmayın" poeması, "Ümid sənədir ancaq , Azərbaycan əsgəri" şeirinin Qarabağ mövzusundakı mühüm əhəmiyyətindən bəhs edilmişdir. Göründüyü kimi, istər nəsr, istərsə də nəzm sahəsində bu mövzuda yetərincə bədii nümunələr yaradılmışdır.

**AÇAR SÖZLƏR: ÇAĞDAŞ ƏDƏBIYYAT-1, MÜHARIBƏ-2, QARABAĞ-3, ZƏFƏR-4**

**SUMMARY**

In the article, the subject of Karabakh is developed in our literature. Karabakh was built by fighting a war written in war, creating works of a characteristic nature. The ideological-artistic features of the works presented as examples were analyzed and the relevance of this topic in our literature was brought to the fore. It is harmful in the field of literature analyzed in connection with the works that reflect the victory motifs of war-themed works. Our writers and poets, who do not forget history, have set themselves this worthy task and created valuable examples of art. "Dolu" by A. Abbas, "The Way of Victory" by N. Hasanzade, "Bairagdar" by Elchi, "Embarrassment" by H. Mirelamov, "Mother's Laughed" by S. Vurgu, "Tears of that Girl" by Z. Yagub, "Don't get used to tents" by Gabil. The poem "Hope is a document, but an Azerbaijani soldier" talks about the danger of Karabakh. As you can see, there are enough examples of this subject in the field of prose and poetry.

**KEYWORDS: Contemporary literature-1, war-2, Karabakh-3, victory-4**

### GIRIŞ

Qarabağ haqqında məqalə yazmağa başlayanda ağlıma ilk olaraq dillər əzbəri bu bayatı gəldi.

Əzizinəm, Qarabağ
Şəki, Şirvan, Qarabağ
Aləm cənnətə dönsə
Yaddan çıxmaz Qarabağ!

Bu bayatının müxtəlif variantlarının olduğunu bir çoxumuz bilirik. Lakin müxtəlif variantlarda olsa da, əsas məna dəyişməz olaraq qalır- "Yaddan çıxmaz Qarabağ!" Əlbəttə, bu misraları "Bayatı-Şiraz" muğamının sədaları altında yazarkən o diyarın, gözəllər seyrəngahı, Xan ayağı dəyən o dağların, hər parçasında tarix yatan sıldırımlı qayaların əzəmət, vüqar dolu mənzərəsini xatırlamamaq mümkün deyil. Amma tarix boyu başıbəlalı yurdumun dağlarının başının üstünü təkcə çən, duman almayıb. İnsan övladı yarandığı gündən içində saxladığı hərisliyinə, acgözlüyünə görə həmişə qırğınlar törətmiş, bu cinayətinə müxtəlif bəhanələr gətirmişdir. Əgər bu müharibə, bu qırğın şöhrəti dillərə dastan olan Qarabağ uğrundadırsa bu yolda vuruşmağa da dəyər, ölməyə də. Bunu əbəs yerə demədim. Bunu II Qarabağ müharibəsində 44 günə yazdıqları zəfər dolu tarixlə vətənin mərd oğulları sübut etdi. Biz təkcə döyüş meydanında əlimizə silah alıb döyüşmədik, eyni zamanda sözün qılıncdan

da kəskin olduğu ədəbiyyatda da öz gücümüzü göstərdik. Qüdrət təcəssümü igid oğullarımızdan, zəfərin gələcəyindən bəhs edən əsərlər az yazılmadı. Bir vaxtlar Qarabağın acısından, kədərindən göz yaşları içində bəhs edən əsərlər öz yerini zəfər müjdəli otuz illik həsrəti 44 günə bitirən tarixi qələbəyə həsr olunan əsərlərə verdi. Artıq Qarabağ çağdaş ədəbiyyatda zəfər mövzusudur. Şəhidlərimizin nəfəsi dəyən qazilərimizin bir parçasını fəda etdiyi Qarabağ bu gün haqqın qələbə çaldığı mövzudur. Müharibə mövzusuna toxunursaq Aqil Abbasın "Dolu" romanının adını çəkməyə bilmərik. Bu o romandır ki, bir döyüşçünün, bir dəstənin yox bütöv bir xalqın döyüşünü özündə əks etdirir. Əsrlər boyu Drakon, Pələng kimi yüzlərlə, minlərlə igid döyüşçülərimiz olub. Yazıçı məhz bu tarixi unutdurmamaq, "Vətən" deyilirsə ölməyin onu işğalda görməkdən daha şərəfli olduğunu xatırlatmaq üçün yazmışdı "Dolu"nu. Onlar şəhadətləri ilə təkcə tarix yazmadılar, eyni zamanda, bu xalqın yaşamağına səbəb oldular. Necə deyərlər "Qəhrəmanlar can verir yurdu yaşatmaq üçün". Neçə sızlayan yaraya məlhəm, axan göz yaşlarını silməyə təsəlli oldular. Bir insan uğrunda ölmək də şəhidlik sayılır. Bu şəhadətə Pələng qovuşmuşdu dostu Drakonun uğrunda canını verərkən. Elə son istəyi olan suyu da dostu Drakon öz papağının içində ona gətirərkən dostluğunu sübut etmişdi. Yazıçı əsərdə Rəis, Komandir, Eldar Bağırov, Qatır Məmməd, Allahverdi Bağırov, Şirin Mirzəyev kimi tarixi şəxsiyyətlərin adlarını çəkib, onların şücaətlərini yüksək qiymətləndirməyə çalışmışdır. Əsərdə ana obrazı kimi verilmiş Pələngin anası da bütün şəhid analarının dözümlülüyünü, mərdliyini özündə cəmləşdirib. Mənəviyyatca və cismən güclü olan bu qəhrəmanların bir gülləyə ölməsi nəyə işarə idi? Bu sualın cavabını yazıçı, görünür, biz- oxucuların ixtiyarına buraxıb. Bəlkə də müharibənin öldürdüyü bu qəhrəmanlar bir vaxt başqa bir bədəndə geri qayıdıb yenidən öz qisaslarını alacaqdılar. Hansı ki, Qarabağ uğrunda canını fəda edən şəhidlərimiz məhz bu qəhrəmanların yolunu tutaraq, onların ruhundan güc alaraq vuruşub şəhadətə yüksəlmişdilər. İndi bu yurdun hər qarışı əsrlərdir bu torpaq uğrunda canını fəda edənlərdən əmanətdir. Nəriman Həsənzadə "Zəfər yolu" poemasında nə gözəl vurğulayıb:

Düşmənin yüz hiyləsi var
Yüzbiri də xəyanətdir.
Bu torpağın hər qarışı
Şəhidlərdən əmanətdir
Əmanətdir, əmanətdir [2, s.20]

Odur ki, əmanətə sadiq qalan Sabir Rüstəmxanlı "Qarabağa dönüş" poemasını yazdı. Hansı ki, bunu özünə bir vətəndaşlıq borcu bilib öz düşüncələrini qələmin köməyi ilə ürəyindən kağıza köçürmüşdü. Elinin oğullarına sonsuz ümidi ilə yazmışdı bu əsəri. Bilirdi ki, biz haqqı nahaqqa qoymarıq. Bizə bu döyüşdə öz yurd yuvamız da kömək əlini uzatmışdı. O qayalar, o daşlar sanki qucaq açıb bağrına basaraq zirvəsinə qaldırırdı əsgərlərimizi. O keçilməz yollar bizə iz göstərirdi ki, yolumuzu azmayaq. Şair igidlərimizə "vur" deyirdi bir vaxt Dədə Qorqudun oğuz igidlərinə "çal qılıncını" dediyi kimi.

...Nə qədər sərt olsa da, bu qayalar, bu daşlar
Övladını tanımış, yol verib qaldıracaq [ 6, s.120]

Bir şair-vətəndaş kimi öz borcunu yerinə yetirməyə çalışan Sabir Rüstəmxanlı eyni zamanda bir millət vəkili, siyasətçi kimi də borcunu yerinə yetirmişdir. "Qarabağa dönüş" əsəri şairin vətəndaş monoloqu olmaqla yanaşı, bizə dəstək olan, dost olanlara da təşəkkür məktubu idi. Hər zəfərin ardında mütləq bir acı həqiqət dayanır. Görünür, S. Rüstəmxanlı da buna görə "Qarabağa dönüş"də qan yaddaşımız olam "20 Yanvar" və insanlığın qurban olduğu "Xocalı" hadisələrindən bəhs edib. Bu elə bir faciə oldu ki, millətimin göz yaşlarını nə silməyə gücümüz çatdı, nə də ovundurmaq üçün sözlərimiz kifayət etdi. Xocalı sanki Qarabağın ağlayan qızı idi. Elə bu səbəbdən də Zəlimxan Yaqub "O qızın göz yaşları"nı silməyə, içinə düşən bu atəşi söndürməyə kömək əlini uzatmışdı qisas dolu misraları ilə. Dünyaya bir mesaj vermək istəyirdi. Bu zülmə dözüm axtaran şair o qızın səssiz göz yaşlarında nə qədər insanın ahının, fəryadının gizləndiyini göstərmək istəyirdi. Xəzangül bəlkə də susurdu, amma gözlərindəki yaşla çox sərt danışırdı, acımasız insanların hər birini mühakimə edirdi. O, indi öz elindən ayrı düşdüyünəmi yansın, ya gözlərinin önündə atasının yandırılmasınamı yansın?! Ürəyinə ömürlük bir yara vurulmuşdu Xəzangülün. Həyatı da adı kimi tələtümlü idi. Üzü xəzan yarpağı kimi solsa da, qəlbinin hardasa bir dərinliyində gül kimi öz təravətini qorumağa çalışırdı. İndi öz evində deyil başqa bir ocaqda isinməyə çalışmalı idi. Ömrümüz boyu ağ gördüyümüz qarı o gün qırmızı rəngində gördüyümüzdə başa düşdük ki, şər haqqın üzünə qırmızı kimi dayanıb, neçə insanı

yurdsuz, yuvasız, ailəsiz qoyub öz vətənində qəriblik yaşadıb. Ona görə "Çadırlara alışmayın" deyirdi görkəmli şairimiz Qabil. Çadırların qəlblərə vurduğu yaranı hiss edirdi. Yurdundan ayrı düşməyin, öz vətənində didərgin yaşamağın necə bir acı olduğunu duyurdu. Cavan, qoca fərq etmir- çadırlara alışmayın! Amma hər zaman bu həssas qəlbli şairin qəlbində bir ümid işığı közərirdi. Hətta xalqını mübarizəyə səsləmək, ürəklərində qisas hissini oyatmaq üçün yeganə ümid yerinin elə Azərbaycan əsgəri olduğunu duyuran bir şeir də yazmışdı. Hansı ki, döyüşə gedən hər əsgərə deyilən bir xalq çağırışı idi-"Ümid sənədir ancaq , Azərbaycan əsgəri". Bu yurdu qorumağı da, vətən uğrunda lazım gələrsə düşünmədən canından keçməyi də sən hər kəsdən yaxşı bilirsən. Elçinin "Bayraqdar" əsərindəki Surxayın da ümid yeri sənsən. Vətənində qərib yaşayan, içindəki həsrətin alovlarını söndürə bilməyən Surxayın bayraq sevgisi kimi sənin də Vətən sevgin var, Azərbaycan əsgəri. Bu gün "Ədəbiyyat" dərsliklərinə salınan bu şeirin hər daim zəfərlərin müjdəçisi olacağına əminəm. Çünki bu əsərləri oxuyan nəsil qisas hissi ilə yetişib ədəbiyyatın zəfər dönüşünü yazdı. Məhz bu oğullar Səməd Vurğunun da yazdığı kimi vətənin çörəyi halalı olsun deyə "Ananın öyüdü"nü alaraq döyüşə yollanmışdılar. Haqq yolundan dönmədən vuruşub qəhrəman oldular. Bizə də şair demiş, o qəhrəman oğulların analarının əlindən öpmək düşər. Dünənki Qarabağ "Xəcalət"i xəcalətsiz oxumayan bugünkü gənclərin sayəsində azaddır. Bu günün gəncləri oxuyaraq dərk etmişdir qəlblərdə açılan yaranın necə can yandırdığını, sevincin qursağımızda ilişib nəfəsimizi necə kəsdiyini. Hüseynbala Mirələmov bizə utanc hissini xatırladan "Xəcalət" povesti ilə yatmış vicdanlarımızın oyanması üçün üzümüzə sillə vurmağı bacarmışdı. Odur ki, Zahid Xəlilin dili ilə desək yumruğumuzu dəmir kimi güclü edib zəfər dastanımızı yazmağı bacardıq. Həm də üstündən əsrlər keçsə belə unudulmayacaq bir dastan.

**1. TƏDQIQAT METODU**

Qarşıya qoyulmuş məsələni həll etmək üçün mənbələr üzərində analiz və nəzəri təhlil metodlarından istifadə olunmuşdur

**NƏTICƏ**

Tarixin alovlu salnaməsində ədəbiyyat da öz vəzifəsini layiqincə yerinə yetirmiş, bir çox yazıçıların, şairlərin qələminin odundan qığılcım alaraq döyüşmüşdür. Ədəbiyyatımızda "Qarabağ" mövzusu 30 illik bir tarixdə ağrı-acılı müharibə motivlərini özündə əks etdirirdisə,dəmir yumruğun gücü sayəsində əldə olunan tarixi qələbə ilə özünün zəfər dönüşünü etdi. Ötən əsrin 90-cı illərindən sonra artıq müharibə mövzusu deyilərkən yadımıza Qarabağ düşür. Təbii ki, Ədəbiyyatda Qarabağ mövzusunun yanından ötəri keçmək olmazdı. Məhz bu fikir ilə bir çox yazıçı və şairlərimiz bu yolda öhdələrinə düşən vəzifəni layiqincə yerinə yetirərək bu mövzuda diqqətə layiq bədii nümunələr ərsəyə gətirmişlər. Bəlkə də Ədəbiyyatın əsas vəzifələrindən biri müharibəyə, zülmə, vəhşiliyə qarşı savaşmaqdır. Bir çox yazıçılar bu mövzuya özünəməxsus şəkildə yanaşmış, tənqid hədəfi kimi müharibəni əsərlərində pisləmiş, zəfəri bədii ifadə və obrazlarla əks etdirmişlər. Onlar bu üsulla müharibəni mühakimə etmiş və xalqıma bu dəhşəti yaşadanları da sözün qüdrəti ilə məhkum etmişlər.

**ƏDƏBIYYAT SIYAHISI**

1. Allahverdiyev V. "Dolu" romanı və Qarabağ hadisələri, 525-ci qəzet
2. Həsənzadə N. (2021) Lirik poema: "Zəfər yolu" – Nəriman Həsənzadə, Bakı,
3. İsgəndərov F. (2016) "Dolu"-Qarabağ mövzusunda yazılmış ən yaxşı əsər, Ədalət. S.3
4. Qabil. Seçilmiş əsərləri. (2004) Bakı, "Şərq-Qərb", 248 səh.
5. Mirələmov H. yaradıcılığında Qarabağ ağrıları, (2004) Bakı Şuşa. S 06
6. Rüstəmxanlı S. (2021)Qarabağa dönüş. Bakı: Qanun, 127 səh

# MİRZƏ CƏLİLİN "ANAMIN KİTABI" PYESİNİN POETİK DİLİ

**FİL.Ü.F.D.SEVİNC QƏMBƏROVA**
Xəzər Universiteti
Dillər və ədəbiyyatlar departamenti
*sevinc.qemberova@mail.ru*
BAKI, AZƏRBAYCAN

**JALƏ VƏLİZADƏ**
Xəzər Universiti
İbtidai sinif müəllimliyi
*jaleturan2006@gmail.com*
BAKI, AZƏRBAYCAN

**XÜLASƏ**

Məqalədə Cəlil Məmmədquluzadənin "Anamın kitabı"tragikomediyasının poetik dili ilə bağlı bir sıra cəhətlər tədqiqata cəlb edilmiş və pyesin dilində yer alan söz qruplarının mahiyyətinə diqqət yetirilmişdir. Pyesin dili köhnəlmiş sözlər,varvarizmlər, məcazlar, bugünkü günümüzdə işləkliyini itirmiş ərəb-fars mənşəli sözlər və s.ilə əhatələnmişdir. Bunun sayəsində ədəbi dilimizin işlənmə arealının genişliyini görmüş oluruq. Pyesdə yer almış leksik vahidlərin araşdırılmasında müxtəlif filoloji lüğətlərdən də (izahlı lüğət, dialektoloji lüğət)istifadə edilmişdir. Bütün bunlarla yanaşı leksik vahidlər əsasında əsərin poetik dilində fikir ifadəsinin əhəmiyyəti özünü göstərir. Tezisdə yer alan materiallar vasitəsi ilə Cəlil Məmmədquluzadənin dilimizə qarşı münasibətini,ana dil məsələsi ,eyni zamanda həmin dövrün dil xüsusiyyətlərini öyrənirik. Müəllif bu məqamları obrazların dili ilə bizlərə təqdim edir. Eyni zamanda pyesdə qoyulan mövzuya da yığcam olaraq toxunulmuşdur. Tədqiqat işinin aparılmasında təsviri, müşahidə və müqayisə metodlarından istifadə edilmişdir.

**AÇAR SÖZLƏR: PYES, POETİK DİL, SÖZ QRUPLARI**

## GİRİŞ

Cəlil Məmmədquluzadə (Molla Nəsrəddin) böyük ədəbi məktəb yaratmış, Azərbaycan ədəbiyyatında yeni bir cığır açmış ədibdir [5, səh.77]. İyirminci yüzilliyin əvvəllərində Azərbaycanda yaranmış mürəkkəb ictimai-siyasi vəziyyət vətənpərvər yazıçını dərindən düşündürürdü. "Xalqın və ölkənin qarşılaşdığı problemləri necə həll etmək olar? Çıxış yolu nədədir?" qəbildən suallara Cəlil Məmmədquluzadə həm publisistik , həm də bədii əsərlərində cavab verməyə çalışır, müasirlərinin diqqətini taleyüklü məsələlərə cəlb edirdi. "Anamın kitabı"nda (1920) məhz belə bir ziddiyyətli dövrün problemləri təsvir edilmişdir.İdeyaca zəngin olan "Anamın kitabı" tragikomediyası bədii həlli verilən problemlərin çoxluğu ilə də fərqlənir: xalqa yadlaşmış ziyalıların məslək ayrılığı, soykökündən uzaqlaşmağın acınacaqlı nəticələri, milli müstəqillik və milli birliyin vacib olması və s.

Bütün bunlar, eləcə də digər ciddi problemlər əsərdə real, təbii səhnələr, orijinal bədii vasitələrlə təqdim edilmişdir. Qardaşların yaşadıqları evdə baş verənlər, cəmiyyəti-xeyriyyənin iclasındakı danışıqlar, eləcə də digər təsvirlər əsərdə qaldırılmış problemləri hərtərəfli əks etdirir.Əsərin maraqla oxunmasının bir səbəbi də konfliktin çoxcəhətli olması və real həyati hadisələrlə səsləşməsidir. Əsərdə obrazların arasında baş verən konflikt mövcud cəmiyyətdəki prosesləri əks etdirir. Təhsil aldıqları ölkələrin düşüncə, davranış tərzini, dilini mənimsəyən qardaşlar nəinki vətənləri, həm də doğma adamları və bir-biri üçün yad adama çevrilmişlər.

Qardaşların düşüncəsinə hakim kəsilən yad əqidə onlar üçün milli birlik və vətənpərvərlik anlayışının üstündən qələm çəkmişdir.Yüz illər boyu yaşadılan, bütün dövr və zamanlarda qorunub saxlanan bir çox milli-mənəvi dəyərlərə etinasız münasibət əsərdə kəskin tənqid edilmişdir. Məsələn, milli-mənəvi dəyərlərdən üz çevirməyin ailə münasibətlərində doğurduğu acı nəticələr əsərdə daha qabarıq əks etdirilmişdir.Bu dəyərlərə laqeydliyin yaratdığı fəsadları tragikomediyanın bütün epizodlarında ardıcıl müşahidə etmək mümkündür.

Əsərdəki obrazlar elə ustalıqla yaradılmışdır ki, oxucu-tamaşaçı onların hər biri haqqında aydın təsəvvür qazana bilir. "Məsləkayrı qardaş"ların: Rüstəm bəy, Mirzə Məhəmmədəli və Səməd Vahid

obrazlarının yaradılmasına isə yazıçı xüsusi diqqət yetirmişdir. Bu, əsərin ideyasının bütün incəliklərinə qədər aydın başa düşülməsi niyyətindən irəli gəlmişdir. Qardaşlar vətənsevər ataları Əbdüləzim bəyin arzusuna uyğun olaraq, ali təhsil almışlar. Böyük qardaş Rüstəm bəy Rusiyada, ortancıl qardaş Mirzə Məhəmmədəli İranda, kiçik qardaş Səməd Vahid isə Türkiyədə oxumuşdur. Lakin qardaşlar vətənlərinə fayda verə bilən elm-bilik sahibi, kamil mütəxəssis kimi qayıtmamışlar. Onların hər biri doğma yurdlarına təhsil aldıqları ölkənin mənafeyinə uyğun əqidə ilə dönmüşlər. Bu, qardaşlar üçün ortaq cəhətdir. Rüstəm bəy zahirən təmkinli, demokrat fikirli adam təsiri bağışlayır. Lakin bunun zahiri, aldadıcı olduğu çox tez aşkara çıxır. Mirzə Məhəmmədəli xasiyyətcə daha tünd olduğu kimi, qatı mühafizəkarlığı, kobudluğu ilə də seçilir. Səməd Vahid həlimtəbiətli adam təsiri bağışlasa da, yersiz inadkarlıqda qardaşlarından heç də geri qalmır. Yad ölkələrin dilinə və əqidəsinə üstünlük vermələri və həmin istiqamətdə fəaliyyət göstərmələri bir ailənin övladlarını ayrı salmışdır.

Senzor Mirzə Cəfərin müstəqil Azərbaycan hökuməti ideyası ilə bağlı çar hakimiyyətinin narahatlığını ifadə edən sözləri ölkədəki mürəkkəb ictimai-siyasi vəziyyət, həlli vacib olan məsələlər barədə aydın təsəvvür yaradır. Belə bir dövrdə qardaşların çürük əqidə ilə yaşaması, mənasız "fəaliyyəti" acı təəssüf hissi oyadır.

C.Məmmədquluzadənin əsərdəki dil sənətkarlığı, artıq qeyd edildiyi kimi, diqqəti dərhal çəkir. Həm rus, həm də Şərq dillərini mükəmməl bilən yazıçı, qardaşların nitqini ustalıqla fərdiləşdirmiş, digər obrazları da səviyyələrinə müvafiq dildə "danışdırmışdır". Qardaşların nitqini qəlizləşdirən təkcə alınma sözlər deyil, həm də onların danışıq tərzinin, fikirlərinin əksər hallarda anlaşılmaz və mənasız olmasıdır.

Anamın kitabı" – Azərbaycanın milli birlik kitabıdır.

Əsərin ədəbi dilində işlənən sözlərin böyük bir qismi hamı üçün ümumişlək (başa düşülən) və milli sözlərimizlə zəngindir. Ancaq əsərdə ədəbi dilə zidd olan poetik ifadələrlə qarşılasırıq. Ümumxalq dilinin müəyyən normaya tabe edilən, normativ tələblər çərçivəsində fəaliyyət göstərən qolu ədəbi dildir [2, səh.26]. Ədəbi dil norması xalq dilinin faktları əsasında müəyyənləşir. Ancaq elə hallar ola bilər ki, ədəbi dil normasında bəzi ünsürlər kənardan düşsün, dilin öz daxili sistemindən gəlməsin [2, səh.31]. Bu dramda da ele leksik ifadələr vardır ki,ədəbi dil normalarına uyğun olmasada,əsərin bədiiliyini artırmışdır. Misal olaraq aşağıdakı söz və ifadələri göstərə bilərik :

Sövt- [ər.] səs,səda[3,IV,səh. 146]. Məsələn: Mirzə,yaz; və lakin həmin "A" sövtü millətlərin bəzisinin dilində çox işlənir, bəzisinin dilində az işlənir...[ 4,səh. 439].

Əlif-[ər.]- ərəb,fars və əski Azərbaycan əlifbasında birinci yerdə gələn ı hərfinin adı; əbcəd hesabında 1 rəqəmini ifadə edir.[1,I,səh.160] ; Hürufat-[ər.]- hərf.c.t.əlifba.[1,I,səh.258]. Məsələn: Necə ki, Yevropa, habelə Asiya millətlərinin hürufatının əvvəlincisi "A" sövtünün əlamətidir ki, biz ona "əlif" deyirik.[4,səh.439].

Mənfəətbərdar-məfəət götürən, gəlir əldə edən,xeyir alan.[1,II,səh. 47] ; İttilaatı-"ittila" c. Xəbərlər.[1,I,səh. 332]. Məsələn: Dadaş, o lüğəti ki, sən yazırsan, bu bir yadigardı ki, hər bir kəs oxuyub mənfəətbərdar olacaq. Amma mənim qanacağıma görə sizin kitabınızda olan məlumat məhz Yevropa və Rusiya mənbəindən əxz olunmuşdur. Belə olan surətdə siz öz əlinizlə lüğətinizin dairəsini daraldırsınız. Mənə qalarsa haman ittilaatı ki, siz o zəhmətnən cəm edirsiniz, onları Şərq və islam elmləri ilə tətbiq eləməyinizin bir eybi yoxdur. Məsələn, götürək haman almas barəsində bərklik söhbətini. Mənim qanacağıma görə, "almasdan bərk şey dünyada yoxdur" demək özü bir səhv və qələtdir. Almasdan bərk şey dünyada çoxdur. [4,səh. 440].

Ləfz- söz,kəlmə.[3,III,səh.407]. Məsələn: Məhəmmədəli, mən heç vaxt o fikirdə olmamışam ki, lüğətimi Şərq aləmindən uzaq tutum; nəinki o fikirdə olmamışam hələ bəlkə özüm sənə demişəm ki, mənim yadımda və siyahımda olmayan ləfzləri mənim yadıma sal ki, kitabımız nə qədər mümkündür, E ... e ... e ... e... [4,səh.441].

Təkmil- 1. Kamala çatdırma, təkmilləşdirmə ; 2. Bitirmə,sona çatdırma.[1,II,səh.365]. Məsələn: Təkmil olsun. İndi hər nə sözün var, de.[4,səh. 441].

Əqidə-[ər.] 1. İnam, məslək, etiqad ; 2. Fikir, qənaət.[1,I,səh.156]; Səzavar-[fars] Layiq, münasib, uyğun, yaraşan. [1,II,səh.289]; Kərrat-[ər.] "kərra(t)" c.dəfələr. [1,I,səh.350]. Məsələn: Söhbət haman səxtlik üstədir ki, siz orada yazdınız. Amma mənim əqidəmcə bu barədə bizə bir əmr buyurulubdur, o əmrdən kənara çıxmaq hər ayinə səzavar deyil. Necə ki, məlumdur və kərrat ilə eşitmişik və kitablardan təhsil eləmişik ki, həqq-təala bizə on şey təyin edib ki, bir-birindən bərkdir. Yəni ən əvvəli

sonrakından boş və sonrakı qabaqkından bərk; ta gedir çıxır onuncuya ki, dəxi ondan bərk, ondan səxt bir şey dünyada yoxdur və ola bilməz.[4,səh.441].

Dadaş-kiçik qardaş və bacıların böyük qardaşa verdikləri ad; böyük qardaşa müraciət [3,I,səh. 509]. Məsələn: Dadaş, əvvəl bu ki,sən dediyin adamların heç birinə mən bələd deyiləm və qaldı ki, sizin mənim barəmdə çalışmağınız əbəsdir; çünki mən bilirəm ki,mən bir kəsi xoşlasam da ,sən razı olsan, Məhəmmədəli dadaşım razı olmayacaq; Məhəmmədəli dadaşım razı olsa,sən izin verməyəcəksən; hər ikiniz də xoşlasanız, Səməd dadaşım bəyənməyəcək.[4,səh. 445].

Dübarə- [fars] ikinci dəfə, təkrar [3,I,səh. 713]. Məsələn: Biz dübarə təvəqqə edirik sədr cənablarından ki, rusca danışmağı bilmərrə qədəğan eləsin. [4, səh. 450] .

Təvəqqə- [ər.] xahiş,diləк.[3,IV,səh. 334].Məsələn: Biz dübarə təvəqqə edirik sədr cənablarından ki, rusca danışmağı bilmərrə qədəğan eləsin. [4, səh. 450] .

Bəradər-[fars] – qardaş. [3,I,səh. 280]. Məsələn: Bəradərlərim, nə qovğa?[ 4,səh. 467].

Müqəssir- [ər.] təqsiri olan, günahı olan; təqsirkar, günahkar.[3,III,səh. 419]. Məsələn: Ana,mən sənin yanında müqəssirəm. [4,səh. 468].

Məsləк- [ər.] 1. Hər hansı bir dünya görüşünə əsaslanan əqidə, məfkurə,amal. 2. Etiqad, məzhəb,inam. [3,III,səh. 351]. Məsələn: Bizim bir-birimiznən danışığımız məsləк üstədir, mübahisəmiz kitab üstədir.[4,səh. 468].

Mübahisə- [ər.] Bir işi,məsələni və s. müzakirə etdikdə öz fikrini qoruyan, sübut etməyə çalışanlar arasında başlanan bəhs,deyişmə.[3,III,səh.402].Məsələn: Bizim bir-birimiznən danışığımız məsləк üstədir, mübahisəmiz kitab üstədir.[4,səh. 468].

Etiqad- [ər.] bir şeye qəlbən və möhkəm inanma,inam.[3,II,səh. 40]. Məsələn : Ana,bax,mən səni lap yaxşı başa salım: nə qədər ki,mən bu kitablara etiqad eləyirəm, Məhəmmədəli də bu kitablara və Səməd də bu kitablara etiqad eləyirlər,dəxi biz nə təhər ittihad edib, mehriban yola gedə bilərik?[4,səh.468].

İttihad- [ər.] (köhn. ) birləşmə ,birlik, ittifaq. •İttihad etmək- birləşmək, birlik, ittifaq yaratmaq, həmrəy olmaq, həmfikir olmaq. [3,II,səh.613]Məsələn : Ana,bax,mən səni lap yaxşı başa salım: nə qədər ki,mən bu kitablara etiqad eləyirəm, Məhəmmədəli də bu kitablara və Səməd də bu kitablara etiqad eləyirlər,dəxi biz nə təhər ittihad edib, mehriban yola gedə bilərik?[4,səh.468].

Tərk-ədəblik - ədəbsizlik.[1,II,səh.386 ]. Məsələn: Ana,məni bağışla, dünən hirsli vaxtımda sənə tərk-ədəblik göstərdim.[4,səh.468].

Gor-[ fars] qəbir, məzar.[3,II,səh.256]. Məsələn: Dadaş, sən atanın goru,ayrılma. [4,səh.468].

Zaiqə-[ər.] bax: zayiqə - beş duygudan biri olan dadbilmə duyğusu.[1,II,səh. 446-447]; Əşar- şeir [1,I,səh. 177]. Məsələn: Ana, ay ana, bir qulaq as, gör nə deyirəm. İşin əslkarı bir yerdədir ki, bax, mən səni bu saat başa salım. Bax, bu evdə üç qism kitab var ki, biz üç qardaş bunlara sitayiş edirik. Bir qismi budur (Rüstəm bəyin kitablarını nişan verir). Bir qismi budur (Səməd Vahidin kitablarını nişan verir). Bir qismi də budur (öz kitablarını nişan verir). Əgər biz bu kitabları bir-birinin yanına qoysaq, diqqətnən baxsaq və zaiqəyə tapşırsaq, baxıb görərik ki, bu üç qism kitablar bir-birinə o qədər oxşayır, necə ki, məsələn, mən Səmədə oxşayıram, Səməd Rüstəmə oxşayır, Rüstəm bəy də mənə oxşayır. Bax, qoy səni qurtarım; qulaq asırsan,ana, ya yox? Bu kitabların cəmisi əşardı, özü də əşar deyirəm ha! Fikrin özgə yana getməsin.Xoruz səsi eşitməyən əşardı![4,səh. 468-469].

Xüsuf- ayın tutulması [1,I,səh.289]; Küsuf- günəşin tutulması[1,I,səh.361]. Məsələn: Bu kitabların da cəmisi bilirsən nədir? Bilmirsən, deyim: cəmisi rus lüğətidir. Bu da elə bir cür naxoşluqdur.O ki, qaldı mənim öz kitablarım, bunların biri xüsufdu, biri küsufdu. Di indi, ana, bizə bir tədbir tök, görək biz nə tövr yola gedə bilərik?! Ana, sözün yoxdu? Məni bağışla, mən getməliyəm.Gülbahar, mən hammal göndərəcəyəm, mənim kitab sandığımı və yatacağımı verərsən gətirsin. [4,səh.469].

Pyesi təhlil edərkən burada bəzi varvar söz və ifadələrdən də istifadə olunduğunu görürük.Onların böyük qismi əsasən rus dilindən keçmiş sözlərdir. Bunların bəziləri müasir dövr üçün köhnəlmiş hesab olunsa da bəziləri hələ də dilimizdə işləkliyini saxlamaqdadır. Bunlara daha çox Rüstəm bəyin və Zivər xanımın nitqində rast gəlirik.Həmin nümunələrin bir necesinə baxaq:

Rüstəm bəy: “Qospoda, zasedanie obyavlyayu otkrıtım”. [Ağalar, iclası açıq elan edirəm].

Zivər xanım: “Ne popimayu, qospoda, çto za dikarstvo? Pust kto kakim yazıkom luçşe vladeet na tom i obyasnyayetsya, çto je takoe?!”. [ Ağalar, başa düşmürəm bu nə vəhşilikdir? Qoy kim hansı dili daha yaxşı bilirsə, o dildə danışsın. Buna nə var ki?”.

Digər varvarizm nümunələri :

Kto-(kim). Məsələn: Kto u telefona? Kimdi telefonda? Kimdi? Səlimə xanım? Salam əleyküm. Sağ ol, sağ ol. Necə? Kim? Hə, yaxşı! Gəlin bir yerdə gedək. Yaxşı, evdədi. Yaxşı, səlamət qal.... (Dəstəyi qoyur yerinə). Rüstəm, Səlimə xanımgil indi gələcəklər; gərək bu gün biletləri paylayaq, sabah da ki, bilirsən, bizdə cəmiyyəti-xeyriyyənin yığıncağıdı. Bilmirəm sənin hələ işin çoxdur?[4,səh.439].

Qlasnı-(sait). Məsələn: həmin "A" hərfi bəzi dillərdə qlasnı hərfidir....[4,səh. 440].

Sloq-(heca). Məsələn: İmla hərfidir və özü də özlüyündə sloqdur.[4,səh.440].

Vopros-(sual); Povestka-( gündəm). Məsələn: Xub, Teymur bəy, povestkada yazılan voprosları oxu, camaat eşitsin.[4,səh. 450].

Reviziyonna- (təftiş). Məsələn: İkinci məsələ məktəb proqramı barəsindədir. Məlumdur ki, keçən həftə reviziyonnaya komissiya....[4,səh.451].

Klass- (sinif). Məsələn: Keçən həftə təftiş komissiyası məktəb proqramı barəsində irad tutub ki, guya proqramlara, neçə ki, lazımdır, diqqət olunmur və dərslər bir növ süst keçir və ikinci klasda...[4,səh.[451].

Zakon-(qanun); Sluçay-(hal); Predusmatret-( təmin etmək); Punkt-(paraqraf); Statya-(məqalə); Sokratit-(azaltmaq) ; Poqreşnost-(səhv); Naprimer-(misal üçün). Məsələn: Heç belə deyil; bağışlayasınız. Zakon bu sluçayları tamamən predusmatret eləyibdir. Əgər raznoreçiye elə bir sluçayda oldu ki, onu mədaxil cərgəsində olan punktlar düz gətirmədi, o vədə smetni statyaları o qədər sokratit edirlər ki, il axırında hesab düz gəlir. Amma bizim smetanın poqreşnostları o barədədir ki, biz, naprimer, təyin eləmişik aclara ildə yüz manat paylayaq; amma biz yüz manat əvəzinə paylamışıq yüz doqquz manat on dörd şahı iki qəpik. [4,səh. 451]. Buradakı *şahı* sözünə nəzər salsaq: Şahı-(köhn.) Beşqəpiklik qara pul [3, IV, səh.182].

## NƏTİCƏ

XX əsr Azərbaycan ədəbiyyatının ən qüdrətli nümayəndələrindən biri olan böyük yazıçı Cəlil Məmmədquluzadə tragikomediyasında bizlərə çatdırmaq istədiyi fikri əsərdə işlənən ərəb, fars mənşəli sözlər, varvarizmlər,arxaizmlər və s. İlə diqqətimizə çatdırmış,eyni zamanda əsərin poetik dili olduqca zəngin və rəngarəngdir.Burada mənası hamı tərəfindən başa düşülən ümumişlək leksika ilə yanaşı, ümumişlək olmayan sözlərdən də məharətlə istifadə edilmişdir. Məqalədə bu sözlər seçilərək qruplaşdırılmış və müxtəlif filoloji lüğətlərdən ( izahlı,ərəb- fars lüğəti)istifadə olunaraq ifadə etdikləri mənalar göstərilmişdir. Seçilmiş ifadələrin hər birinə aid nümunələr verilmişdir. Ümid edirik ki, pyesin dilinin tədqiqata cəlb olunması sayəsində onun qavranılması gənc oxucuları üçün daha rahat olacaqdır. Eyni zamanda araşdırma ilə tanış olmaları şagird və tələbələrin əsərin dilini daha yaxşı anlaya bilmələri üçün faydalı ola bilər.

## ƏDƏBİYYAT SİYAHISI

1. Klassik Azərbaycan ədəbiyyatında ərəb və fars sözləri lüğəti. İki cilddə. Bakı," Şərq və Qərb"nəşriyyatı,2005.
2. Hacıyev T. Azərbaycan ədəbi dilinin tarixi. I hissə. Bakı, "Elm" nəşriyyatı,2012
3. Azərbaycan dilinin izahlı lüğəti. Dörd cilddə. Bakı,"Şərq və Qərb"nəşriyyatı,2006.
4. Cəlil Məmmədquluzadənin seçilmiş əsərləri. IV cilddə. I cild. Bakı, "Öndər"nəşriyyatı,2004.
5. Mir Cəlal, Firudin Hüseynov. XX əsr Azərbaycan ədəbiyyatı. Bakı, "Maarif" nəşriyyatı, 1982.

# XIX-XX ƏSR AZƏRBAYCAN ƏDƏBİYYATINDA QADIN OBRAZLARI (M.F.AXUNDZADƏ VƏ Ü.HACIBƏYOV DRAMATURGİYASINDA)

**JALƏ HÜSEYNOVA**
*Bakı Slavyan Universiteti*
*Magistratura*
*Huseynovaj03@gmail.com*
BAKI, AZƏRBAYCAN

**Xülasə**

Azərbaycanın bütün dünyada tanınan iki böyük sənətkarı və ziyalısı M.F. Axundzadə və Ü. Hacıbəyovun adı Azərbaycan ədəbiyyatında və musiqisində etdiyi ilklərlə anılır. M.F. Axundzadə ədəbiyyatımızda dramaturgiyanın və realist bədii nəsrin əsasını, Ü. Hacıbəyov isə Azərbaycanda və Şərqdə ilk opera müəllifi kimi iz qoymuşdur. Qadın hüquqları və qadın azadlığı problemi eləcə də dövrə və mühitə uyğun qadın obrazları yaratmaq bütün dünya ədəbiyyatında önəmli yerə malikdir. Və bizim hər iki sənətkarımız da öz əsərlərində unudulmaz Azərbaycan qadını obrazları yaratmışdır. Ü. Hacıbəyovun yaratdığı qadın obrazlarına nəzər saldıqda özündən əvvəlki dövrün yazıçısı M.F. Axundzadənin yaratdığı qadın obrazlarına necə bənzədiyini aydın görürük. Hər ikisinin yaratdığı qadınlar onların görmək istədiyi güclü, öz fikrini söyləməkdən çəkinməyən Azərbaycan qadınlarıdır. Təbii ki, bu qadınlar yaşadıqları mühit və dövrlə əlaqədar mükəmməl qadın obrazları olmasa da əzilən qadın tipləri deyildir.

**Açar sözlər:** M.F. Axundzadə, Ü. Hacıbəyov, Azərbaycan ədəbiyyatında qadın obrazları, XIX-XX əsr Azərbaycan ədəbiyyatı

**Abstract**

The names of two great artists and intellectuals of Azerbaijan, M.F. Akhundzade and U. Hajibeyov, who are known all over the world, are mentioned for the first things they did in Azerbaijani literature and music. M.F. Akhundzade laid the foundation of dramaturgy and realistic artistic prose in our literature, and U. Hajibeyov left his mark as the first opera author in Azerbaijan and the East. The problem of women's rights and women's freedom, as well as the creation of women's characters appropriate to the era and environment, has an important place in the world literature. And both of our artists have created unforgettable images of Azerbaijani women in their works. When we look at the female characters created by U. Hajibeyov, we clearly see how they are similar to the female characters created by M.F. Akhundzade, the writer of the period before him. The women created by both of them are the strong Azerbaijani women they want to see, who do not hesitate to express their opinion. Of course, these women are not oppressed types of women, even if they are not perfect female images due to the environment and era they live in.

**Keywords:** M.F. Akhundzade, U. Hajibeyov, female characters in Azerbaijani literature, 19th-20th century Azerbaijani literature

## Giriş

Azərbaycan ədəbiyyatının tarixi kökləri çox qədim dövrlərə qədər uzanır. İstər türk xalqları ədəbiyyatında, istərsə də ümumdünya ədəbiyyatında milli ədəbiyyatımız özünəməxsus yerə malikdir. Beləliklə, milli ədəbiyyatımızda hər ədəbi növdə, bir çox ədəbi janrda əsərlər yaradılmışdır. Bu yaranan ədəbi nümunələrdə sənətkarlarımız həm bəşəri, həm də milli problemlərə toxunmuşdur və ədəbiyyatımızda müxtəlif mövzularda rəngarəng əsərlər ortaya çıxmışdır. Azərbaycanın yüzlərlə sənətkarı dünya mədəniyyət və incəsənətinə öz töhfəsini vermiş və silinməz izlər qoymuşdur. Biz bu dəfə belə dahilərimizdən iki sənətkarın-M.F. Axundzadə və Ü. Hacıbəyovun dramaturgiyasında yaratmış olduğu qadın obrazlarına nəzər salacağıq.

Bildiyimiz kimi dünya və Azərbaycan ədəbiyyatında müxtəlif mövzularda əsərlər yazılmış və bu ədəbi nümunələrdə bir çox ictimai problem və eyiblər oxucunu gözü önünə sərilmişdir. Əsrlər keçsə

də öz aktuallığını hələ də qoruyan və bir çox bədii əsərlərdə öz əksini tapan belə mövzulardan biri də qadın hüquqsuzluğu və cəmiyyətdə qadına münasibət problemidir.

Qadın obrazları və onların daşıdığı psixoloji, xarakter xüsusiyyətləri öz yaşadığı icmitai mühit və dövrə görə bir-birindən fərqlənir. Biz belə bədii əsərlərin daha çox iki istiqamətdə bu adıçəkilən problemləri işıqlandırdığını görürük-əzilən və hüquqları tapdanan qadınların zülmünün öz əksini tapması və ya qarşılaşdığı maneələrə qarşı mübarizə aparan, əzilməyən və hüquqlarını müdafiə edən güclü qadın obrazları yaradılır, belə əsərlər dünya ədəbiyyatında da feminist ədəbiyyata aid edilir.

Biz M.F. Axundzadə və Ü. Hacıbəylinin dramaturji yaradıcılığına dair araşdırmaları gözdən keçirdikdə M.F.Axundzadənin yaradıcılığa dair araşdırmanın daha çox olduğunu və Ü.Hacıbəyovun isə əsasən, musiqi sahəsindəki fəaliyyətinə həsr edilən araşdırmaların olduğunu görürük. Lakin Ü. Hacıbəyov yazdığı musiqili komediyalar və satirik hekayələrlə də Azərbaycan ədəbiyyatına töhfələr vermiş və çox gözəl əsərlər, unudulmaz obrazlar yaratmışdır. Biz bu iki sənətkarın da əsərlərindəki qadın obrazları ilə tanış olduqda M.F. Axundzadə və Ü. Hacıbəyovun qadınlarının bir-birinə necə bənzədiyinə, onların obrazları arasındakı paralelliklərə şahid oluruq. Ü. Hacıbəyovun musiqli komediyalarındakı qadın obrazlarına M.F. Axunzadə komediyalarındakı qadın obrazlarının təsirini sezmək çətin deyildir. Bu qadınlar mükəmməl deyildir və müəyyən qüsurları vardır. Bu qüsurlar da yaşadıqları dövr, cəmiyyət və siyasi-ictimai durumla bağlıdır. Ancaq bu qadınlar əsla zəif deyil və öz cəsarəti, ağlı, zirəkliyi ilə seçilirlər. Biz bu haqqında söz açdığımız mövzuda iki fəsil ətrafında danışacağıq: 1. M.F. Axundzadənin yaratdığı yeni tipli qadın obrazlarının xüsusiyyətləri; 2. M.F. Axunzadənin qadın obrazlarının Ü. Hacıbəyovun qadın obrazlarına təsiri. Araşdırmamızda digər bu mövzuda olan məqalələrə və ədəbiyyatlar nəzər salacağıq və əsərlərin özündən çıxarışlar edəcəyik.

**1. M.F. Axundzadənin yaratdığı yeni tipli qadın obrazlarının xüsusiyyətləri**

XIX əsr Azərbaycan ədəbiyyatı M.F. Axundzadə ilə bir çox yöndən öz inqilabını yaşadı. Bunlardan biri də ədəbiyyatımızda dramaturgiyanın əsasının qoyulmasıdır. M.F. Axunzadə dramaturgiyanın əsasını komediyaları ilə qoydu. O, öz komediyalarında XIX əsrdə bütün Qafqazda olduğu kimi Azərbaycanda Çar Rusiyasının işğalı altında olduğu mühit və bu mühitin doğurduğu obrazlar təsvir olunur.

XIX əsrin əvvəllərində hələ də cəmiyyətimizdə Şərq mühafizəkar qaydaları öz varlığını davam etdirirdi. Bu səbəbdən də nadanlığın və cəhalətin qarşısını alıb xalq arasında maarifçi ideyaları yaymaq çətinləşirdi. Ə. Haqverdiyev bu barədə deyib ki, M.F.Axundzadə öz qadın obrazları ilə ədəbiyyatda inqilab yaratdı. Onun yaratdığı qadın obrazları kişilərdən daha ağıllı və gözüaçıq idi. M.F. Axundzadə hər insanın bərabər hüquqa malik olduğunun tərəfdarı və dolayısıyla da qadınların da kişilərlə eyni hüquqa malik olduğunu görmək istəyirdi. M.F.Axundzadə öz əsərlərində qadın azadlığının ölçüsünü bütün cəmiyyətin azadlığının ölçüsü sayırdı. Sənətkar eyni zamanda komediyalarında qadınların kişilər tərəfindən onların boynuna qoyulan mühafizəkar qaydalara görə necə təzyiq altında qalıb əzilməyə çalışdığını və hətta maddiyat səbəbindən alınıb-satıldığını ifşa etmişdir. O dövrün qadınları həmçinin məcburən cahilliyə məhkum edilirdi (Mehparə, 2012).

Sənətkarın "Hekayəti-müsyö Jordan həkimi-nəbatat və Dərviş Məstəli şah caduküni-məşhur" komediyasında Şərəbanu və Şərəfnisə obrazları hər nə qədər o dövrün bir çox qadını kimi cahil olsalar da hər hansı bir məsələ də öz etirazlarını bildirməkdən çəkinmir və hətta ailədəki kişilərə qarşı gəlir və öz hökmlərini ortaya qoyur. Məqsədlərini həyata keçirmək üçün müxtəlif yollara əl atır və qorxmurlar. Sənətkarın "Hekayəti-xırsi-quldurbasan" komediyasındakı qadın obrazlarının yaşadıqları cəmiyyətin meyarlarına uyğun olaraq özünə evlənəcəyi adamı seçdiyini və qadın psixologiyasına ümumi düşüncənin təsirini görürük, bu əsərdə də məhdudiyyətlərlə üzləşməklərinə baxmayaraq ağıllı və zirək qadınları görürük. "Hekayəti-vəziri-xani-Lənkəran" əsərində Şölə xanım və anası öz qıvraq zəkası və cəsarəti ilə oxucunu heyrətləndirir. Belə ağıllı və güclü qadın obrazlarına "Mürafiə vəkillərinin hekayəti" əsərində Səkinəni misal göstərə bilərik. "Sərgüzəşti-mərdi-xəsis" komediyasında da Sona xanımın xahişi ilə Heydər bəyin həbs olunmaqdan qurtulması və bağışlandığını görürük, bu qadına hörmət və onun cəmiyyətdəki hörmətini göstərir.

M.F.Axundzadənin komediyalarındakı qadınlar kişilərdən daha zirəkdir hətta onlara ağıl verib yönləndirirlər. Amma biz belə obrazları həmin dövr yazılı ədəbiyyatında, məsələn C.Məmmədquluzadə yaradıcılığındakı kadın obrazlarında görə bilmirik. Buradakı qadınlar daim əzilən və hüquqsuz, taleyinə çarəsiz boyun əyən qadınlardır. Onun "Danabaş kəndinin əhvalatları" əsərində Zeynəb, "Ölülər" əsrində Nazlı obrazının timsalında görürük (Eyvazlı, 2012).

M.F.Axundov azad və zirək qadın obrazı yaratmaqla yanaşı obyektiv davranaraq bu qadın obrazlarını mənfi və pis cəhətləri olduğunu yazmaqdan da çəkinməmişdir. Məsələn, "Mürafiə vəkillərinin hekayəti"-də deyilir: "...bu qədər qoçaq və bacarıqlı qadınların içində ola bilməz ki, qorxaq və bacarıqsız qadın olmasın və habelə sədaqətli, doğru və dürüst qadından savayı hiylə və saxtakarlığa mail qadın tapılmasın..." (Axundzadə, 2005).

**2. M.F.Axunzadənin qadın obrazlarının Ü.Hacıbəyovun qadın obrazlarına təsiri**

Ü.Hacıbəyovun ilk musiqili komediyası olan "Ər və arvad" əsərində Minnət xanım öz zəkası və cəsarəti ilə bizə M.F.Axundzadənin Şölə xanım obrazını xatırladır. Minnət xanım həmin dövrdəki cəmiyyətin sapqın normalarına uymaqdan qorumağa çalır. Burada eyni zamanda çoxarvadlılıq da pislənir. Və Minnət xanım öz ağlı ilə ərinə dərs verərər onu bu əməlindən həmçinin qumardan çəkindirir. Bu əsərdə qadın obrazının öz ərindən heç qorxmaması və düz bildiyinə inandığının arxasınca getməyi onun gücünü, əzmini və olduğu toplumda özünü müdafiə edə bildiyini göstərir (Qurbanov, 2019). Sənətkarın ikinci musiqili komediyası olan "O olmasın, bu olsun" əsərində də sevgi azadlığı və qızların madiyat üçün istəmədikləri evliliyə məcbur edilməsi məsələsi ortaya qoyulub. Burada Gülnaz Sərvərə yox, varlı qoca Məşədi İbada ərə gedəcəyi təqdirdə özünü öldürəcəyini hətta sərvərlə qoşulub qaçmağa belə razı olduğunu dilə gətirir. Bu isə həmin dövr üçün cəsarətli bir addım idi (Əliyarlı, 2014). Bundan başqa əsərdəki qulluqçu Sənəm obrazı da bu evlilik haqqında real və mənfi fikirlərini Rüstəm bəydən qorxmadan dilə gətirir və bu izdivacın əleyhinə olduğunu bildirir. Baxmayaraq ki, Sənəm evin hətta sadəcə qulluqçusu idi. Sənəm bizə M.F.Axundzadənin Şərəbanu və Şərəfnisə obrazlarını xatırladır (Qurbanov, 2019).

**Nəticə**

Beləliklə, yuxarıda yazılanlardan da görürük ki, həm M.F.Axundzadə, həm Ü.Hacıbəyovun qadın obrazları yaşadıqları dövr və cəmiyyətdə nə qədər məhrumiyyətlər və təzyiqlərə məruz qalsalar da əsla zəif qadınlar deyil öz toplumdakı rolu və öz seçim haqqı uğrunda mübariz olan qadınlardır. Bu sənətkarlar cəmiyyətdə gücünə inandığı və görmək istədiyi qadın obrazları yaratmışdır. Həmçinin bu qadın obrazları yaradılarkən onların mənfi cəhətləri də göz ardı edilməmiş və təbii obrazlar yaranmışdır. Biz Ü.Hacıbəyovun dramaturji yaradıcılığı ilə daha yaxından tanış olduq və onu M.F.Axundzadə ənənələrinin davamçılarından biri kimi tanıdıq. Və Azərbaycan ədəbiyyatındakı real, təbii və güclü, ağıllı qadınların bir qismi haqqında danışdıq.

**Ədəbiyyat siyahısı**

1. Axundzadə, M.F. (2005). Mirzə Fətəli Axundzadənin seçilmiş əsərləri, 162.
2. Mehparə. (2012). Mirzə Fətəli Axundzadə və XIX əsrdə qadın məsələsi. Azərbaycan Milli kitabxanası rəsmi saytı anl.az/down/meqale/medeniyyet/2012/may/252346.htm 30.03.2024.
3. Eyvazlı, A. (2012). Mədəniyyətin gender aspektləri. Kayzen kollektiv bloq servisi Mədəniyyətin gender aspektləri | Kulturologiya (mədəniyyətşünaslıq) | Kayzen 01.04.2024.
4. Əliyarlı, D. (2014). Gülçöhrə və Gülnaz-Üzeyir Hacıbəyovun gənc qadın qəhrəmanları. Voice of America xəbər bloqu Amerikanın Səsi (amerikaninsesi.org) 01.04.2024.
5. Qurbanov, B. (2019). Üzeyir Hacıbəylinin əsərlərində qadın mövzusu. Respublika Qəzeti, 29(4), 7.

# CƏFƏR CABBARLI VƏ NAMİQ KAMALIN PYESLƏRİNDƏ QADIN OBRAZLARININ TƏHLİLİ VƏ MÜQAYİSƏSİ

**Abbasova Şəlalə**
OYU, Pedaqoji, humanitar və dillər fakültəsi
Filologiya ixtisası, 4-cü kurs
*abbasovaslal55@gamil.com*
Elmi rəhbər: Fil.ü.f.d. N.Muxtarzadə
nurideibay@gmail.com
BAKI,AZƏRBAYCAN

**XÜLASƏ**

Bu məqalədə Azərbaycan və Türkiyə ədəbiyyatının tanınmış qələm sahiblərindən Cəfər Cabbarlı və Namiq Kamalın pyeslərində yaratdıqları əsas surətlər olan qadın obrazlarının müqayisəli təhlili işlənib. Araşdırma Cəfər Cabbarlının "Solğun çiçəklər", "Vəfalı Səriyyə və ya Göz yaşları içərisində gülüş" və Namiq Kamalın "Zavallı çocuk", "Arif bəy" pyesləri üzərində aparılıb. Adı çəkilən dramlarda bir-birindən elə də uzaq olmayan tarixi dövrdə, mədəniyyət baxımından bənzər olan cağrafiyada oxşar taleyi yaşayan, istər eyni, istərsə də fərqli xarakterə malik qadın obrazları diqqət mərkəzində saxlanılıb. Müəlliflər tərəfindən real həyatı əks etdirərək canlandırılan hadisələr hər nə qədər keçən əsrə aid olsa da, indiki zaman çərçivəsində də paralel məqamlarla qarşılaşırıq. Bunun da nəticəsində Namiq Kamal və Cəfər Cabbarlı kimi sağlam fikirli mütəfəkkirlərin adı çəkilən qələm nümunələrindəki mövzuların aktual olduğunun şahidi oluruq. Aparılan tədqiqatın məqsədi bir-birində çox da uzaq olmayan dövrdə, mühitdə yaşamış, cəmiyyətdə cərəyan edən bənzər hadisələrə şahidlik etmiş iki dramaturqun qadın konsepsiyasına dram yaradıcılıqlarında yanaşmalarını araşdırmaqdır. Məqalənin əhəmiyyəti bu günədək davam etdiyini gördüyümüz qadının cəmiyyətdəki mövqeyinə dair fikir ayrı-seçkiliyinə yazıçıların yaşanan vəziyyəti öz düşüncələrini obrazlar əsasında ifadə edərək qələmə aldıqları pyeslər əsasında fərqləndirməkdir.

**Açar sözlər: cəfər cabbarlı, namiq kamal, pyes, qadın obrazları, obrazların müqayisəsi**

## GİRİŞ

Ədəbiyyatda bir sıra mövzular var ki, dünyanın müxtəlif ölkələrindən olan ədiblər ortaq olaraq həmin mövzulara müraciət edirlər. Bu mənada eyni mövzuya müraciət etmiş qələm sahiblərinə Azərbaycan və Türkiyə ədəbiyyatında da rast gəlirik. Belə ki, Türkiyə ədəbiyyatından Namiq Kamal ilə Azərbaycan ədəbiyyatından Cəfər Cabbarlı yaradıcılıqlarında qadın mövzusuna yer veriblər. "Zavallı çocuk" , "Arif bəy" və "Vəfalı Səriyyə və ya Göz yaşları içərisində gülüş", "Solğun çiçəklər" dramlarında bu məqamı görürük.

Cəfər Cabbarlı yaradıcılığa şeirlə başlasa da, ən məşhur əsərlərini dram janrında yazmış, Azərbaycan dramaturqu və teatr xadimi kimi tanınmışdır. Xalqın tərəqqisinin ana xəttini mədəniyyətin, teatrın inkişafında görən sənətkar bir-birinin ardınca gözəl səhnə əsərləri yaratmış, eyni zamanda incəsənətin müxtəlif sahələrində də fəaliyyət göstərmişdir. [5]

Yeni Türkiyə ədəbiyyatının ən görkəmli ədəbi siması olan Namiq Kamal dramaturq, şair, publisist, nasir, tənqidçi kimi tanınmaqla yanaşı, həm də məşhur ictimai-siyasi xadim idi. [1,səh117]. Çağının maarifçi yazıçısı kimi dramaturgiyanı «ədəbiyyatın ən böyük hissəsi», «Ədəbiyyatın canlı dili» hesab eləyən N.Kamal teatrı insanların mənəvi tərbiyəsində mühüm rol oynayan təsir edici bir vasitə olaraq yüksək qiymətləndirirdi. [1,səh129].

Türk qadınlarının sosial mühit və cəmiyyətdə özlərinə mövqe qazanmaqla bağlı tarixi inkişaf prosesində irəliləyişləri bir çox yazarlar tərəfindən öz əsərlərində əks etdirilmişdir. Bu baxımdan araşdırmanın türk ədəbiyyatı qolu olan Tənzimat yazarı Namiq Kamal da əsərlərində qadın anlayışına toxunur. Tədqiqatın Azərbaycan ədəbiyyatı qolu olan Cəfər Cabbarlı Çar Rusiyası dövründən ayrılaraq Cümhuriyyət, daha sonra sovet dövrü ilə davam etmişdir. O, Azərbaycan qadınının sosial həyatını və hüquqlarını əsərlərinin əsas mövzusuna çevirir.

Namiq Kamal bu mövzuya dair görüşlərini və həmin dövrdə real həyatda baş verənləri “Zavallı çocuk”, “Arif bəy” dramlarında, Cəfər Cababrlı isə “Vəfalı Səriyyə və ya Göz yaşları içərisində gülüş” və “Solğun çiçəklər” pyeslərində ifadə etmişdir.

Adı çəkilən dram əsərlərindən “Zavallı çocuk” ilə “Vəfalı Səriyyə” və “Solğun çiçəklər” pyesləri arasında bir sıra məqamların oxşarlıq təşkil etməsi ilə yanaşı fərqlilikləri də mövcuddur . Bununla bərabər “Akif bəy” və “Solğun çiçəklər” əsərlərində oxşar və fərqli nüanslar mövcuddur.

“Zavallı çocuk” 1873-cü ildə Namiq Kamal tərəfindən yazılan və nəşr olunan üç pərdəli teatr tamaşasıdır. O, ilk pyesi “Vətən və ya Silistr” tamaşasının səhnələşdirilməsindən sonra baş verən hadisələr nəticəsində sürgünə göndərilən Magosada yazıb. Bu, buraxılış sırasına görə onun altı pyesindən ikincisidir. 1874-cü ildə yazıçının sürgünü davam edərkən Güllü Agopun Gedikpaşadakı Osmanlı Teatrında nümayiş etdirilir. Kamalın ən çox əhəmiyyət verdiyi məsələlərdən biri olan ailə mövzusunu təsvir edir. [5]. “Zavallı çocuk” pyesinin baş qəhrəmanları Şefika və Ata bəydir. Ata bəy gənc yaşlarında yetim qalıb və qohumu Şefikanın atası Xəlil bəy tərəfindən himayə edilib. Ağıllı və zəhmətkeş olan Ata tibb fakültəsinin tələbəsidir. O, himayəsində böyüdüyü Xəlil bəyin qızı 14 yaşlı Şefikanı sevir. Şefika da Ata bəyi çox sevir. Bir-birini sevən bu iki gənc evlənmək arzusundadırlar. Lakin Şəfiqənin anası atasının borcuna görə qızını məcburi şəkildə zəngin bir paşaya ərə verir. Şefika belə bir məsələnin yaşandığını Atadan gizlədilməsini istəyir. Məcburi ərə gedən və sevgilisinə qovuşa bilməyən Şəfiqə vərəm xəstəliyinə tutulur. Bu zaman təhsildən qayıdan Ata Xəlil bəyin dilindən həqiqətləri öyrənir. Əsərin finalında Ata bəy zəhər içir və iki gənc həyatını itirir.

“Arif bəy” Namiq Kamalın Maqosda sürgündə olarkən yazdığı beş pərdəli pyesdir. 1874-cü ildə 130 səhifə olaraq çap edilmişdir. Pyesin mövzusu, quruluşu və əks xarakterləri baxımından Kamalın ən diqqət çəkən əsəri olduğunu deyə bilərik. Tamaşanın adı baş qəhrəman Akif bəyin adından götürülüb. [8]. Namiq Kamalın "Akif bəy" faciəsi də bir növ ailə - məişət mövzusunda yazılmışdır. Lakin müəllif burada "Zavallı çocuq"dan fərqli olaraq əxlaqsız bir qadının həm cəmiyyətdə,həm də ailədə oynadığı pozucu rolunun təsvirini ön plana çəkmişdir. Əsərin qəhrəmanı Akif bəy dəniz süvarisidir. Vətəninivə xalqını canından da artıq sevən bu gənc böyük arzularla yaşayır. O, Dilruba adlı bir qızla ailə qurur. İlk baxışdan gözəl və ismətli görünən bu qadın, əslində pozğun həyat yaşayan, namusvə ismətdən uzaq olan bir gəncdir. Rus donanması ilə türk donanmasının dəniz savaşları zamanı Akif bəyin gəmisi partladılırvə o, təsadüfən bir gəmi taxtası üzərində sahilə çıxaraq xilas olur.Lakin onu hamı ölmüş bilir. Dilruba onun şəhid olduğunu sübutedən bir saxta sənəd düzəldərək Əsəd adlı bir başqasına ərəgedir. Akif bəy yaşadığı yerə gəlir. Bütün əhvalatları təfsilatı iləöyrənir və Dilruba ilə Əsədin yaşadığı evə gedərək Dilrubanıöldürmək istəyir. Güllə Dilrubanın qarşısına keçən Əsədə dəyir.Əsəd ölüm ayağında Akifi xəncərlə vurur. Hadisə yerinə gələnAkif bəyin atası Dilrubanı öldürür.

C.Cabbarlı tədqiqatçısı professor Asif Rüstəmlinin araşdırmalarından məlum olmuşdur ki, böyük dramaturq ilk dram əsəri olan "Vəfalı Səriyyə"-ni 1912-ci ildə, 13 yaşlı məktəbli ikən yazmışdır. Əsərin ilk əlyazma nüsxəsində yazılma tarixini nişan verən müəllif qeydləri vardır. "1912, noyabrın 1-də, Qurban ayının 3-də". Deməli, Cəfər Cabbarlı "Vəfalı Səriyyə" pyesini tədqiqatçıların indiyədək güman etdikləri "30.12.1915"-ci ildə yox, özünün qeyd etdiyi kimi 1912-ci il noyabrın 1-də, Qurban ayının 3-də bitirmişdir. [10].“Vəfalı Səriyyə və ya Göz yaşları içərisində gülüş” pyesində Səriyyə və dayısının oğlu Rüstəm bir-birini sevir. Lakin anası Çimnaz xanım pul müqabilində qızı zorla qardaşının oğlu Qurbana ərə vermək istəyir. Bu məqsədə nail olmaq üçün Səryyənin etirazlarına qarşı qoymayaraq qızına şiddət göstərməkdən, evə qapatmaqdan çəkinmir. Sevdiyini çətin vəziyyətdən xilas etməyə çalışan Rüstəm ölüm ilə üzləşir. Buna səbəb isə onun haqq uğrunda çalışaraq və onun Qurbana maneə olmağa çalışması idi. Pul, mal-mülk dərdi olan Çimnaz xanım qızı Səriyyənin hisslərinə məhəl qoymadan, onun razılığı olmadan dini toy edir. Və bu dini toyda Səriyyə iştirak etmir, pulla tutulmuş yalançı şahidlərin razılığı ilə baş tutur. Rüstəm əsərin finalında bu vəziyyətin dinə uyğun olmadığını, şahidlərin yalan danışdığını, Səriyyənin yerinə başqa qızın toya gətirildiyini sübut edir. Sonluqda yenidən Rüstəmi öldürməyə cəht göstərsələr də bu dəfə də alınmır. Lakin keçən səfərdən fərqli olaraq bu dəfə həbs olunub sürgünə göndərilirlər.

"Vəfalı Səriyyə yaxud göz yaşları içində gülüş" əsərindən sonra yazıçı "Solğun çiçəklər" əsərini yazmışdır. Əsər 1915-ci ildə qələmə alınıb. Dramda yazıçı ictimai quruluşa qarşı öz etirazını bildirmişdir. Əsər ilk dəfə 1916-cı ildə İsmailiyyə Sarayında oynanılmışdır. [6]. “Solğun çiçəklər” əsərinin əvvəlində Bəhram və Sara adlı iki qardaşın övladı bir-birini sevir və evlənmək

arzusundadırlar. Lakin Saranın ögey anası Gülnisə əvvəlcə Saranın anasının vərəm xəstəliyindən dünyasını dəyişməsinə səbəb olub və atası ilə evlənir. Daha sonra atasını zəhərləyərək öldürür və Saranın bütün mirasını ələ keçirmək istəyir. Saranın atasının sağlığında oyandığı oyunla bütün mal-mülkü öz adına keçirtmişdi. Onun məqsədi Saradan xilas olub öz qızı Pərini Bəhrama ərə vermək və bütün mirasa sahib olmaq idi. Məqsədinə çatmaq üçün Saraya qarşı qəddar şəkildə davranaraq onun qarşısına iki şərt qoyur.Ya başqa bir bəylə evlənməli, ya da evdən getmıli idi. Sara kölə tək yaşamaq əvəzinə evi tərk etməyi seçir. Bəhramı sədaqətlə gözləməsinə rəğmən Bəhram Pərinin yalançı şirinliyinə və sərvətili olmasına aldanır. Əsərin sonunda Sara xəstəlikdən ölür. Ölümündən bir az əvvəl sevdiyi adamla ögey bacısının toyuna şahidlik edir. Sevdiyi şəxsin var-dövlət uğruna ondan imtina etməsinə rəğmən atasının ona çatmalı olan mülkü üçün apardığı mübarizədə qalib gəldikdən sonra sərvətin bir hissəsini Bəhrama bağışlamağı vəsiyyət edir. Son səhnədə Bəhram öz səhvini anlayır, gözündən pərdə qalxır və sevdiyi günahsız insanın onun üzündən ölməsinin öhdəsindən gələ bilmədiyi üçün dəli olur, Pərini boğaraq öldürür.

Namiq Kamal "Zavallı çocuk" əsərində ailə anlayışı vasitəsilə qadınlara toxunur. Lakin o, qadın anlayışına toxunmur; qadını sosial həyatda təsvir etmir, əslində sönük fonda işləyir. Yəni biz bu əsərdə Namiq Kamalı qadın hüquqlarının müdafiəçisi kimi görmürük. Onun yaratdığı sadəlövh qadın tipi Şəfiqə ailəsi tərəfindən zorla evləndirildikdə belə, susur və vəziyyəti qəbul edir. Hətta atası ondan sevdiyi birinin olub-olmamasını sual etdikdə belə fikirtlərini ifadə etmir, cəsarətsiz şəkildə gizlədir.

Halil Bey - Fena bir şey söylemedim kızım! Şefika paşadan pek nefret gösteriyor. Şayet gönlü başka birini istiyorsa anlasak da ona göre hareket etsek dedim. [4, səh17]

Şefika – (Kendini tutarak) Bey babacığım! Ben ne adamım ki gönlüm başka birini istesin. Sizden hiç ummazdım. [4, səh18]

O, üsyankar, məzəmmətçi və müqavimət göstərən qadın kimi görünmür. "Canım da feda olsun. Ata, Ata da feda olsun. Yaparım. Bundan sonra ne emir ederseniz onu yaparım" [4, səh21] dedikdə, ancaq əvvəlcə cəmiyyətin təzyiqi, sonra ailəsinin təzyiqi ilə qadınlara qoyulan həyat standartlarına boyun əyir. Şefika xoşbəxliyinə gedən yolda özünün ən böyük maneəsinə çevrilir. Hətta düşdüyü vəziyyəti Atadan gizlədilməsini istəyərək özü-özünü çarəsizliyi düçar edir.

Şefika – Lakin size… Size bir ricam var. Hâlime merhamet edin de onu kabul edin. Ta ben paşaya gidinceye kadar Ata duymasın! Allah'ınızın aşkına duymasın! İki evladınızın başı için duymasın!

Bir sözlə, Namık Kamal bu tamaşada qadını öz istəkləri uğrunda mübarizə meydanında kənar şəkildə təsvir edir və finalda sevgisindən vərəmdən ölən passiv qadın obrazını yaradır.

Cəfər Cabbarlı isə pyeslərində həmişə qadınları ictimai həyatda təsvir etməklə qadınları feminist prizmadan müdafiə etmək istəyir. O, adət-ənənələrin və cəmiyyətin qadınla bağlı qoyduğu bütün köklü inancları sərt şəkildə tənqid edir. Bu kontekstdə Cəfərr Cabbarlı ilk teatr əsəri olan "Vəfalı Səriyyə və ya Göz yaşları içərisində gülüş" əsərində qadın anlayışına toxunub. Yuxarıda tədqiq etdiyimiz ailə anlayışından da göründüyü kimi Səriyyə də "Zavallı çoçuk" dakı Şefika kimi anası tərəfindən zorla evləndirilmək vəziyyəti ilə qarşılaşır. Amma Şrfika kimi vəziyyəti qəbullanmır və etiraz edir, düşüncələrini açıq şəkildə ifadə edir.

S ə r i y y ə. Mən R ü s t ə m ilə hələ uşaqlıqdan bir yerdə olduğum üçün ondan ayrı yaşaya bilmərəm.

H ə m z ə. Necə? Nə dedin? (S ə r i y y ə ağlayır.) Səninlə deyiləm? De görüm nə dedin?

S ə r i y y ə. Mən Q u r b a na getməyə razı... (Ağlayır.)

H ə m z ə. Sonra? De görüm, tez bağrım çatladı.

S ə r i y y ə. Bəli, razı deyiləm! [2, səh11]

Ancaq Seriyye Şefikadan fərqli olaraq heç kimə boyun əymir, həqiqətləri görür, döyüşür və sonda qalib gəlir və sevgilisinə qovuşur. Həm öz sevgisi, xoşbəxtliyi, həm də yeridilməyə çalışan təziqlərə, haqq-hüququnun tapdalanmaması uğrunda mübarizə aparır.

S ə r iy yə. Ah, dünya! İllər ilə ürəyimdə bəslədiyim şirin-şirin ümidləri məhv etmək istəyirlər, amma, heyhat, əbəsdir, ta mən ölməyincə onlar istədiklərinə çatmazlar. [2, səh29]

S ə r i y y ə (anasının ayaqlarına yıxılır). Ay ana! İtdir, hər nədirsə, mənim ürəyim onu sevir, mənim gözüm onu tutub, mən ona aşiqəm, mən onu sevirəm, sən məni ona ver, qoy mən gün görmüyüm. Ah! Ana, ana, ana! Barı sən, sən rəhm et! [2, səh29]

Cabbarlı Səriyyə obrazını aydın düşüncəli, savadlı, ağıllı qadın kimi təsvir edib. O, məktəb yoldaşı ilə söhbətlərini təsvir etməklə, həm də təhsil alan qadının necə şəxsiyyət ola biləcəyini sübut edir. Cahilliyin qurbanı olan anasının ona təklif etdiyi həyatı heç vaxt qəbul etməyən Səriyyə nəhayət anasına üz tutub deyir:

Çi m n a z (onu itələyir). Rədd ol burdan! Həyasız! (Gedirlər.) [2, səh29]

S ə r i y y ə (durub onun dalınca). Get, get! Alçaq qadın, xain! Sən məndən ötrü ər bəyənmişsən! [2, səh29]

Müəllif Səriyyəni S həm də kimliyindən asılı olamayaraq haqqsızlıq edənlərin cəzasız qalmasına göz yummayan bir obraz olaraq yartmışdır. Bunu əsərin sonunda anasının həbsə aparılarkən dediyi fikirlərdən görə bilərik.

S ə r i y y ə. Cənab pristav, məlumunuz olsun ki, cinayətkarların əvvəlincisi bu arvad, mənim anamdır. Çi m n a z. Başına dönüm, ay qız, bu vaxtımda məni qazamata göndərmə. S ə r i y y ə. Get, xain! Mən sənin qızın deyiləm! [2, səh32]

Cabbarlı bu baxımdan Səriyyə obrazında ilk öncə öz ayaq üstə dayana bilən sosial qadın obrazını yaradır, sonra digər obrazlarında bu yolu daha da irəli aparır.

Cafer Cabbarlı qadın məfhumunu müzakirə edərkən obrazlarını müxtəlif prizmadan müzakirə edib. O, güclü qadın obrazı yaratmaqla yanaşı, həyata və cəmiyyətin təzyiqinə boyun əyən passiv qadın obrazlarına da müraciət etməyi də diqqətdən kənarda qoymayıb. Bununla o, qadınları hər iki aspektdən dəyərləndirərək cəmiyyətə təsir və fərqliliklərini göstərməyə çalışmışdır. Lakin Cabbarlının əsərlərində belə qadın obrazları çox azdır. Bu tip qadın obrazlarına misal olaraq onun "Solğun Çiçekler" pyesindəki qadın obrazını göstərə bilərik. Cabbarlı, Solğun Çiçəklər tamaşasında sevgi mövzusu ilə yanaşı dünyanın reallıqlarını və varlı insanların hərəkətlərinin nəyə başa gələ biləcəyini dramatik şəkildə təsvir edir. Sara Cabbarlı tərəfindən zəif qadın tipi kimi təsvir edilmişdir. O, ədalətsiz dünyanın və həyatın ona yaşatdıqlarına məğlub olaraq xəstələnir. Anasını və atasını Gülnisənin zəhərləyə biləcəyini belə ağlına gətirmir, hər kəsi özü kimi saf qəlbli hesab edir. Seriyye kimi igidlikle haqqını axtarmaz ve pislərlə savaşa getmir. Sara sevgilisi və əmisinin oğlu Behramın onu nəyə satdığını başa düşmür. Bəhram onu mal-mülk uğruna tərk etdikdən sonra belə yenə onu gözləyir. Halbuki Bəhramın bu addımından sonra Sara ondan üz çevirib özü üçün mübarizə aparmalı idi. Məntiqli düşünüb düzgün qərarlar verə bilmir, çiçəkləri kimi solur. Cabbarlı bu obrazda orta əsrlərdə meydana çıxan məhəbbət dastanlarında qadın tipini yaradıb, onu yeni dövrə təqdim edib. O, özünü dövrün qadını kimi göstərməyib. Sara ögey anası Gülnisə və ögey bacısı Pəri ona etdiklərinə görə hesab çəkmir.

Bu kontekstdə Sara obrazı bizə "Zavallı çoçuk" dakı Şefikanı xatırladır. Hər iki personaj qarşımızda məsum, səssiz və günahsız kimi görünür, onlara edilənlərə biganə qalır. Şəfiqə də, Sara da onlara edilənlərə qarşı çıxmır, xəstələnir və sonda onlar sevgilərinə görə ölürlər. Yaşadıqları çətinlikdən çıxmağa cəhd göstərmirlər, mübarizədən qaçırlar. Öz həyatlarını başqalarının öhdəliyinə verirlər. Belə ki, Şefika anasının dediklərini etməklə, Sara isə Bəhrama inanıb gözləməməklə uçuruma sürüklənir. Talehləri kimi bir-birinə bənzəyən Şefika və Sara obrazları oxşar xarakter daşıyır və müəlliflər tərəfindən fərqli məqsədlər üçün yaradılmışdır. Məsələn, Şəfiqənin anasına qurban olaraq öldüyünü görürük. Namık Kamal urada o, ailə təziqi ilə qızın həyatının necə alt-üst olmasından danışır, qadınların təhsili məsələsinə toxunur. Cabbarlı Sara obrazını yaratmaqla zəif və gücsüz qadınların sonunun ancaq belə ola biləcəyini göstərməyə çalışıb. Qadını orta əsr zehni və zehniyyətindən təmizləmək istəyən Cabbarlı əslində Saranın həyatını və sonunu emosional kontekstdə təsvir etməklə aysberqin görünməyən tərəflərinə işarə edib.

Eyni zamanda Solğun Çiçəklər tamaşasında yaxşı ürəkli və məsum Sara obrazının tam əksi olan iki qadın obrazı var. Bunlar Saranın ögey bacısı Pəri və ögey anası Gülnisədir. Səxavətli, məsum, saf və xoş qəlbli qadın obrazı olan Saranı yaradarkən əslində onun məsumluğunu Pəri və Gülnisə vasitəsilə ifadə edir. Gülnisə Saranın sərvətinə tam sahib olmaq üçün onun atasını gizlicə zəhərləyir və ögey qızını aradan götürür. Mərhum arvadının qardaşının oğlu, yəni Saranın dayısının oğlu Bəhramın da bu sərvətdə payı olduğu üçün bir-birini sevən iki gənci ayırır. Bəhramı çaşdıraraq onu öz qızı Pəri ilə evləndirir. Bəhram pula, var-dövlətə satılaraq sevgilisini uçuruma itələyir. Burada Pəri özünün pis qadın obrazı ilə oyuna girir. Pəri zahirən zərif və gözəl olsa da, içində böyük bir pislik var. Guya Bəhramı sevir və Saranı gizli qısqanır və ona nifrət edir. Bəhram əvvəlcə ona cavab verməyəndə anasının intriqaları ilə Bəhramı alır. Pul və var-dövlət hərisliyindən qeyri-insani hərəkətlərə əl atır.

Ögey bacısı Saranın ölümünə də əhəmiyyət vermir. Hər şeyi pulla almaq olar deyə düşünən Pəri Bəhramı da pulla alır.

P ə r i. Sara da ölüb getdi, indi işlər tamamilə düzəldi. Daha bir qəmim yoxdur. Hərçənd ki, B ə h r a m bir neçə gündür sərsəm kimi olubdur, amma onun eybi yoxdur, yadından çıxıb gedər. Neçə vaxtdır evə də gəlmir. Budur, onun dalınca axtarıb, buraya gəlmişəm. Bir evə gəlsə, sonra mən tez hər bir şeyi başından çıxardaram. Amma anamın həbs ediləcəyi məni çox narahat edir. Gərək lazım gələcək qədər pul qoyub onu xilas edəm. Hər halda Sara öldü, əl-qolum açıldı. Indi B ə h r a m daha məndən başqa kimi istəyəcək? Istəyirsə, heç məni də istəməsin. Nə vaxta kimi mən təzvir1 edəcəyəm. Ondan başqa dünyada gözəl yoxmu? (Əbdül tərəfə gedir.) Yenə sən onlarla oynayırsan? Götür at onları bayıra. Yığışdır o rəsmi, kitabları apar bir yerə qoy, get işini gör. [2, səh61]

Sitat verilən mətndən göründüyü kimi, Pəri hətta Saranın ölümünə sevinir. Duyğusuz və qəddar olan Pəri əslində Behramı sevmir. O, tamamilə pulu sevir. Lakin bu pis əməllər cavabsız qalmır. Baş verən hər şeydən sonra dəli olan Behram əsərin finalında Pərini boğaraq öldürüb.

Cabbarlı burada kapitalist dünyasının insanlara mənfi təsirlərini də müzakirə edib. Müəllif bu məsələni müzakirə edərkən sosial həyatda qarşılaşdığı qadınları obyektiv qiymətləndirməyi də unutmur. Qadın məfhumunu ön planda tutan müəllif insan təbiətinə görə qadınları təkcə mələk kimi göstərmir. O, qadınları həm yaxşı, həm də pis personajlar kimi təsvir etməklə həyat həqiqətlərini izah etməyə çalışıb.

Eləcə də Namık Kamalın Akif bəy pyesində pis qadın tipi var. Tamaşanın baş qəhrəmanı Akif bəyin yenicə evləndiyi Dilruba xanım əri müharibəyə gedən kimi dərhal yeni ər axtarır. Dilruba müasir fiziologiyanın adam yeyən, nimfoman adlandırdığı qadınlardan biridir. Bu baxımdan Dilruba xanımın Solğun Çiçəklərdəki Pəriyə bənzər xasiyyətləri var. Pis niyyətli Dilrubanın əsl sevgidən anlayışı yoxdur və o, ərini də sevmir.

DİLRÜBA

Yalnız, kapıdan bakarak merdivenden indiğini ve pencereye koşarak sokağa çıktığını gördükten sonra müstehziyane gülerek

Bu adam gerçekten deli! İnsanın Ferhat Şirin meseline inanacağı geliyor! Yedi aydır birlikteyiz. Tavrımdan da bir şey anlayamadı! Ben bir gün gelir, âdeta karı koca oluruz, insan gibi geçiniriz zannettim. Biz ise hâlâ âşık maşuk, bir türlü hâlimiz değişemiyor. İnsan utanıyor da hep muhabbet göstermek101 için ne tuhaf taklitler yapıyor! Lakin gittiği vakit ağlama diye üstüme varmasaydı, bilmem ne yapacaktım? Bilmem nasıl ağlayabilecektim? Şaşarım ki bir adam doğru olunca her yalanı nasıl doğru zanneder!

Bu mətndən də anlaşıldığı kimi, Dilruba Akif bəyə qarşı heç bir emosional yaxınlıq hiss etmir. Onu yalnız cinsi obyekt kimi görür. Çünki Akif bəyin ölüm xəbəri hələ dəqiq olmasa da, yalançı şahidlər tutaraq ölüm xəbərini yayır və bu vəziyyəti dəqiqləşdirir. Beləliklə, o, yeni evliliyə yelkən açır. Tanpınar demişkən, Dilruba insan yeyən xarakterdir. Bunu açıq-aydın Akif bəyin atası Süleyman Kaptana deyir.

DİLRÜBA

Tuhaf zihni varmış! İnsan mektepten çıkma olduğunu düşünür de hayrette kalır. Ben bu yaşta mı sefil olacağım. Bey acaba dünyada kendinden başka erkek yok mu zannedermiş. Sizin merhametiniz lazım değil. Beni düşünecek adam var. Şimdi yanınızdan çıkıverdi. Daha dün nikâhına girdim. Akif gittiyse Esat sağ olsun.

Göründüyü kimi, Namık Kamal bu obrazı əxlaqi cəhətdən aşağı və zəif təsvir etmişdir. Lakin o, onu pulsevər qadın kimi göstərməyib. Deməli, Dilruba ilə Pərinin fərqi ondadır ki, o, xəsis deyil. Dilruba Süleyman Kaptana "İstəmirəm. Mənə o mirasa lazım deyil" dedikdə, puldan çox kişi istədiyini göstərir. Pəri kimi yalan və saxtakarlıqla arvadını özünə çəkir, amma Pəri kimi pula fikir vermir. Çünki Pəri pulu alandan sonra Bəhrama əhəmiyyət vermir. Onun üçün vacib olan yeganə şey məsələ sərvət idi. Dilruba üçün kişi var-dövlətdən önəmli idi.

**TƏDQİQAT METODU:**

Araşdırmamızda qarşıya qoyulmuş məsələni həll etmək üçün tədqiqat metodu olaraq analiz, müqayisə və təhlil metodlarından istifadə edilib. Bu metodlar vaistəsi ilə müxtəlif illərdə yazılmış pyeslərin toxunduğu ortaq mövzuların, yaradılan müxtəlif obrazların oxşar cəhətlərinin araşdırılması üzərində dayanılıb. Eyni zamanda müəlliflərin əsərlərində yaratdıqları qadın obrazları vaistəsi ilə

mövzuya olan mövqelərini sərgilədikləri üçün onların yanaşmalarındakı düçüncəni daha aydın görmək məqsədi ilə təhlil, analiz və müqayisə metodlarından istifadə olunub.

## NƏTİCƏ

Nəticə etibarı ilə, tədqiq etdiyimiz mətnlərdən də göründüyü kimi, müəlliflərin pyeslərində qadın anlayışı hər iki müəllif tərəfindən müxtəlif cür işlənir. Tarixə nəzər salsaq, Namık Kamal pyeslərini Osmanlı İmperiyasının Tənzimat və Məşrutə monarxiyası dövründə yazıb. Bu bir həqiqətdir ki, bu dövrdə, Osmanlı imperiyasının son illərində Qərbdə baş verən qadın hərəkatlarına baxmayaraq, Türkiyədə qadın hərəkatları əsərlərdə öz əksini tapmamışdır. Bütün bunlara baxmayaraq, Kamal qəzet yazılarında ilk olaraq qadın anlayışının cəmiyyət qarşısında marjinallaşmasına toxunmuş, daha sonra bunu əyani şəkildə göstərmək və ictimai fayda üçün teatr şəklində bu məsələyə toxunmuşdur. Qadın məfhumu ilə məşğul olarkən, onların vasitəsilə süjetləri həyata keçirirdi. O, qadının vətəndə, ailədə, ictimai-siyasi mühitdə tutduğu mövqeyə toxundu, lakin qadınların marginallaşmasına toxunarkən bu vəziyyətin yalnız nəticələrini göstərdi. Tənqid etməklə yeni həllər çıxara bilmədi.Çünki, o zaman buna imkan verən mühit yox idi. Türkiyədə bu mühit bir müddət sonra, Cümhuriyyət dövründə ortaya çıxacaqdı.

Cəfər Cabbarlı teatr əsərlərini 20-ci əsrin ilk 30-cu illərində yazıb. Belə ki, bu dövrdə - 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti yarandı. Azərbaycan Xalq Cümhuriyyəti Yaxın Şərqdə qadınlara səsvermə hüququ verən ilk ölkə olub. Bu əlverişli mühitdə yerləşən Cabbarlı pyeslərində qadın anlayışını incəlikləri ilə incələyərək işıqlandırır. Cabbarlı bilirdi ki, Azərbaycan Xalq Cümhuriyyətindən sonra qurulan sovetlər sivilizasiya adı altında xalqı istismar edir. Bu kontekstdə o, ilkin olaraq vətən mövzusunda olan pyeslərə diqqət yetirsə də, senzura və həbs ehtimalına görə qadın mövzulu əsərlərə keçdi. Cabbarlı bu pyeslərdə qadın məfhumunu araşdırarkən qadına qarşı fiziki, cinsi, psixoloji və iqtisadi zorakılığın bütün formalarını tənqid edərək cəmiyyətin dəyər mühakimələrini dəyişməyə imkan verib. O, pyesləri ilə Azərbaycan cəmiyyətinə öz ideologiyasını yeritməyi bacardı və qadınlar marginallaşmadan qurtularaq həyatın bütün sahələrində iştirak etməyə başladılar.

Cəfər Cabbarlı cəmi 15 pyes yazdı; Bu əsərlərdən ikisi aradan qaldırılsa da, digər 13 tamaşasının hamısında qadın anlayışından bəhs etdiyini görürük. Namiq Kamal 6 teatr əsəri də yazıb və onların hamısında qadın obrazlarını canlandırıb, onların hiss və duyğularını təsvir edib. Ancaq Cəfər Cabbarlı və Namiq Kamalın teatr əsərlərindəki qadın obrazları bir çox cəhətdən bir-birindən fərqlənir. Namık Kamal qadın obrazlarından bəhs edərkən, onları daha çox passiv fonda təsvir etmişdir. O, pyeslərində qadına qarşı olan haqsızlıqları ictimai mövqe kimi qələmə versə də, əsərlərində qadın obrazını əsas qəhrəman kimi göstərməyə üstünlük verməmişdir. Cəfər Cabbarlı isə qadın personajları təsvir edərkən onlara üstünlük verib və ənənəvi cəmiyyətin qadınlara çəkdiyi həyat tərzini tənqid edib.

**SUMMARY**

As a result, as can be seen from the texts we studied, the understanding of women in the authors' plays is handled in various ways by both authors. If we look at the history, Namık Kamal wrote his plays during the Tanzimat and Constitutional monarchy of the Ottoman Empire. This is a fact that, regardless of the women's movements that started in the Middle East in the last years of the Ottoman Empire, women's movements in Turkey did not find their own reflection in the works. Regardless of all this, in his newspaper articles, Kamal first talked about the marginalization of women's understanding in the face of society, and then he talked about this issue in the form of theater to show it clearly and for social benefit. While he was preoccupied with the concept of women, he would bring the subjects to life through them. He was upset with the position that women held in the country, in the family, and in the social-political environment, but while he was upset with the marginalization of women, he only showed the consequences of this situation. He could not create new situations by criticizing, because there was no environment that allowed this at that time. This environment in Turkey would emerge after a while, during the Republic period.

Cəfər Cabbarlı wrote his theatrical works in the first 30s of the 20th century. Therefore, in this period - 1918, the Azerbaijan People's Republic was created. The People's Republic of Azerbaijan was the first country in the Near East to give women the right to voice. Cabbarli, who settled in this favorable environment, illuminates the understanding of women in her plays by examining them with

subtleties. Cabbarlı knew that the soviets established after the Azerbaijan People's Republic were exploiting the people under the name of civilizasiya. In this context, although she first paid attention to the plays about the motherland, she moved on to the works about women due to the possibility of senzura and news. While investigating the concept of women in these plays, Cabbarlı made it possible to change the valuable judgments of the society by narrowing down all forms of physical, sexual, psychological and economic oppression against women. With her plays, she managed to destroy the Azerbaijani community's own ideology, and women got rid of marginalization and began to participate in all areas of life.

Cəfər Cabbarlı cəmi wrote 15 plays; Even though two of these works have been removed, we see that all of the other 13 works talk about the concept of women. Namiq Kamal wrote 6 theatrical plays and in all of them, he portrayed women's images and depicted their feelings and emotions. However, the portrayals of women in the theatrical works of Caffer Cabbarlı and Namiq Kamal differ from each other in many ways. While Namık Kamal talked about women's images, he depicted them in a more passive background. Even though he wrote about the injustices against women as social situations in his plays, he did not give priority to portraying women as heroes in his works. While depicting female characters, Cafer Cabbarlı gave them superiority and criticized the lifestyle that the traditional society imposed on women.

**ƏDƏBİYYAT SİYAHISI**

1. Aydın Abi Aydın. «Türkiyə ədəbiyyatı tarixi». Bakı, "Bakı Universiteti" nəşriyyatı, 2007.
2. Cəfər Cabbarlı. Əsərləri. Dörd cilddə. II cild. Bakı, “Şərq-Qərb”, 2005.
3. Kemal, N. (2019 b). Akif bey. Eskişehir: Anadolu Üniversitesi Yayınları.
4. Kemal, N. (2019 b). Zavallı Çocuk. Eskişehir: Anadolu Üniversitesi Yayınları.
5. Quliyev Elman. Türk xalqları ədəbiyyatı. Bakı, "CONATANT EMPARY", 2011.
6. https://az.wikipedia.org/wiki/C%C9%99f%C9%99r_Cabbarl%C4%B1
7. https://teis.yesevi.edu.tr/madde-detay/namik-kemal
8. https://tr.wikipedia.org/wiki/Akif_Bey
9. https://www.tarihistan.org/c-f-r-cabbarlinin-v-fali-s-riyy-piyesi/25079/
10. https://www.facebook.com/100039183758035/posts/10158892610489684/
11. https://www.xn--muratyklmaz-4zbb.com.tr/zavalli-cocuk-namik-kemal/

# TÜRK ROMANINDA MODERNİZM-POSTMODERNİZM DELİMİTASİYASI

**Aytən Tağıyeva**
AMEA, akad. Z.M.Bünyadov adına
Şərqşünaslıq İnstitutu,
“Türk filologiysı” şöbəsinin kiçik elmi işçisi
ayten.reshidli@gmail.com
Bakı, Azərbaycan

**XÜLASƏ**

XIX əsrdə Tənzimat dövründə mədəni dəyişim ilə əlaqədar əsası qoyulan türk roman janrının dünya ədəbiyyatında yaranma tarixi XVII əsrə qədər gedib çıxırdı. Böyük tarixi yol keçmiş mədəni, sosial-iqtisadi və s. tərəfdən hər gün inkişaf edən Qərb toplumunda roman dəyişimi zəruri idi. Buradan aydın olur ki, dünya ədəbiyyatında üç əsrlik yol keçmiş roman janrında olan bütün dəyişikliklər türk ədəbiyyatında bir əsr ərzində baş vermişdir. Elə bu səbəbdən də, türk romanının realizm, romantizm

və daha sonralar modernizmdən postmodernizmə qədər olan keçid yolu o qədər də asan olmamışdır. Beləliklə, tədqiqat işinin mövzusu olduqca aktualdır.

**Açar sözlər:** postmodernizm, roman, intertekstuallıq, metatəhkiyə, türk ədəbiyyatı

**DELIMITATION OF MODERNISM-POSTMODERNISM IN TURKISH LITERATURE**

**ABSTRACT**

The history of the emergence of the Turkish novel genre in world literature, which was established due to the cultural change experienced during the Tanzimat period in the 19th century, dates back to the 17th century. Cultural, socio-economic etc. that have gone a long historical way. A new change was necessary in Western society, which was developing day by day in many aspects. It is understood from here that all the changes that have occurred in the novel genre in world literature for three centuries have also occurred in Turkish literature in one century. For this reason, the transition of the Turkish novel from realism, romanticism and later modernism to postmodernism was not so easy. For this reason, the topic of the research work is very relevant.

**Keywords:** postmodernism, novel, intertextuality, metafiction, turkish literature

## GİRİŞ

XX əsrin ədəbi cərəyanlarını araşdırmaq olduqca çətindir. Çünki modern və postmodern cərəyanları mahiyyət etibarı ilə nə qədər yeni hadisə kimi səslənsə də bir-birini əvəz edən sələf-xələf münasibəti vardır. Bu dövr ədəbi konsepsiyaları doğru araşdırmaq üçün estetik fikrin bütün tarixini nəzərdən keçirmək lazımdır. Bütün dəyərlərin dağılması və onların yenidən qurulması üçün bəşər tarixinin keçdiyi bütün dolanbac yolları nəzərdən keçirmək lazımdır. Məhz bu səbəbdəndir ki, çağdaş dövr ədəbi cərəyanları araşdırmaq, onlar haqqında konkret irəli sürmək və müəyyən çərçivəyə salmaq mümkünsüz hala çevrilmişdir.

"Ədəbiyyatda roman tədqiq etməyin ayrıca çətinliyi vardır. Bu onun bənzərsiz quruluşundan qaynaqlanır. Roman inkişafını davam etdirən, hələ də tamamlanmayan janrdır" (M.Bakhtin s.164) - söyləyən tədqiqatçı Bakhtin roman janrının elastik quruluşunun onun müasir dövr navator yazıçılarının dil imkanlarına uyğunlaşa bildiyini dilə gətirmişdir. Buna görə də roman janrı yaranandan bu yana bütün cərəyanlara aid xüsusiyyətlərə asanlıqla uyğunlaşa bilmişdir. Roman janrının bədii əsnəkliyi yazıçıya imkan verir ki, özündən əvvəl olan bütün nəsr nümunələrindən təsirlənib yeni əsər yaratsın. Elə bu səbəbdən də tədqiqat işinin əsas obyekti roman janrıdır.

Yıldız Ecevit, Berna Moran kimi ədəbiyyat nəzəriyyəçilərinin elmi əsərlərindən aydın olur ki, türk ədəbiyyatında postmodernist xüsusiyyətlərin olduğu roman yazarları Oğuz Atay, Orxan Pamuk, Həsən Ali Toptaş, Mətin Kaçan, Lətifə Tekin, Bilgə Karasu, Murad Gülsoy, Əlif Şəfəq, Səma Kaygusuz, İhsan Oktay Anar, Sürəyya Evrən və sairədir. Türk ədəbiyyatında modernizm XX əsrin ikinci yarısında yaranmış və postmodernizmlə paralel inkişaf etmişdir. Yuxarıda adı çəkilmiş çağdaş dövr yazarlarının bəzilərinin yaradıcılığında eyni zamanda həm modernist, həm də postmodernist əsərlər vardır.

## TƏDQİQAT METODU

Tədqiqat zamanı müasir ədəbiyyatşünaslığın elmi-nəzəri müdəaları əsas götürülmüşdür. Dünya və türk ədəbiyyatının bir çox mənbələrinə əsaslanaraq **sistemli təhlil metodundan** istifadə edilmişdir.

## TƏDQİQAT

### Ədəbiyyatda köklü dəyişim və ya modernizm

XIX əsrdə Tanzimat dövründə mədəni dəyişim ilə əlaqədar əsası qoyulan türk roman janrının dünya ədəbiyyatında yaranma tarixi XVII əsrə qədər gedib çıxır. Böyük tarixi yol keçmiş mədəni, sosial-iqtisadi və s. tərəfdən hər gün inkişaf edən Qərb toplumunda roman yaranması zəruri idi. Çünki türk ədəbi dili sadaələşməli, ərəb, fars sözlərindən azad olmalı idi. Bu böyük dəyişimlə ədəbiyyat xalqın dilinə enməli idi. Beləliklə ədəbiyyatda realist, romantik üslubda yeni romanlar yaranmağa başladı. Buradan aydın olur ki, dünya ədəbiyyatında üç əsrlik yol keçmiş roman janrında olan bütün dəyişikliklər türk ədəbiyyatında bir əsr ərzində baş vermişdir. Elə bu səbəbdən də, türk romanının realizm və romantizmdən əvvəl modernizmə, daha sonra isə postmodernizmə qədər olan keçid yolu o qədər də asan olmamışdır.

Modernizm XIX əsrin sonu XX əsrin əvvəlində yaranan, hər iki dünya müharibəsi dövründə və XX əsrin 50-ci illərinə qədər davam edən fəlsəfi idealogiyadır. İdealogiyanın əsasında dəyişərək

inkişaf etmək, keçmişi inkar edərək yenidən qurmaq durur. Modernizm inqilabi axımdır. Çünki bu fəlsəfənin nümayəndələri varlığı yenidən qurmağa çalışırdı. Elə buna görə də, cərəyan incəsənətin bütün sahələrinə, siyasətə, eləcə də ədəbiyyata ciddi təsir göstərmişdir.

Modern sözü latın dilində olan "modernus" sözünün törəməsidir. Hansı ki, bu sözdən ilk dəfə V əsrdə istifadə olunmuşdur. Mənası "indi baş verən" deməkdir. Söz köhnənin qarşısında duran yeni fikir mənasında işlənir. XX əsrin əvvəllərinə qədər "modern" kəliməsinin mənası tamamilə fərqli idi. Yenilənən, dəyişən bütün hadisələr modern idi. Ancaq XX əsrin 20-ci illərindən bu kəlimənin mənası bir qədər dəyişdi. Artıq modern kəliməsi köklü dəyişiklik mənasında istifadə olunmağa başladı. Modern kəliməsi bir idealogiyaya çevrildi. Bu idealogiyanın əsas məqsədi dünyanı tamamilə dəyişmək, özünə qədər bütün fikirləri alt-üst etmək idi.

Ədəbi janr olaraq roman XX əsrdə olduğu qədər heç vaxt bu qədər ciddi dəyişikliyə məruz qalmamışdır. Bu dövrdən etibarən roman janrından tələb olunan xüsusiyyətlər tamamilə dəyişmiş, yeni forma almışdır. Bu dəyişikliklərin bəziləri aşağıdakı kimidir:

- Romanlarda tarixdən və ya milli, dini düşüncələrdən götürülmüş konkret mövzular əvəzinə, daha mücərrəd mövzular əhatə olunmağa başlandı.
- Əsərdə hadisələrə cəmiyyətlə təmasda olmaq əvəzinə fərdi münasibət hökm sürürdü. Beləki, romanlar cəmiyyət və ətraf mühit haqqında deyil, daha çox insanın daxili aləmindən bəhs edirdi.
- Demək olar ki bütün modern romanlar psixoloji əsərlərdir. Əsərlərdə obrazlar içəqapanıq xarakterə malikdirlər.
- Modernist romanların özünəməxsus estetik quruluşu vardır. Yazar hadisələri sadə formada deyil, sözün estetik gücündən yararlanaraq allegorik ifadələrdən, poetik dildən geniş istifadə edirdi.
- Ənənəvi romanlardakı kimi göndəriləcək mesaj açıq şəkildə oxucuya təqdim olunmurdu.
- Modern romanlarda realist əsərlərdə olduğu hadisələr gerçək həyata uyğun olsun deyə dialektlərdən (şivələrdən) istifadə olunmamışdır.
- Modernist romanda səbəb-nəticə əlaqəsi arxtarmaq doğru olmazdı. Əsərin sonu mütləq müəyyən nəticə ilə bitmək məcbiriyyətində deyildi.

**Türk ədəbiyyatında modernizmdən postmodernizmə keçid**

XIX əsrin II yarısında qərbləşmənin yeganə yolunun realist, rassionalist düşüncədən keçdiyini düşünən türk ədəbiyyat nümayəndələri fantastik, romantik fikirlərdən uzun illər uzaq olmuşdurlar. Hətta uzun müddət gerçəkçi ədəbiyyat o qədər çox oxunurdu ki, oxucu kütləsi türk xalq dastanlarından, nağıllardan, miflərdən tamamilə uzaqlaşmışdı. Türk ədəbiyyatında bu gecikmə istər realizmin, istərsə də modernizmin inkişafını ləngitmişdir. XX əsrin II yarısında bu cərəyan bir müddət postmodernizmlə paralel inkişaf etməsinin səbəbi bu gecikmələrlə əlaqədar idi.

Fəlsəfədə inkarı inkar qanunu deyilən bir konsepsiya vardır. Hansı ki, bu konsepsiyanın mahiyyəti yeninin köhnəni inkar edərək inkişaf prossesinə səbəb olmasından ibarətdir. Ancaq bu inkar köhnəni tamamilə məhv edərək yaranan yenilik deyil. Məsələn postmodernizmlə modernizm arasında da əlaqə belədir. Postmodernizm modernizmi inkar edir amma onu məhv etmir, onun üzərində inkişaf edir, müəyyən qədər onun da xüsusiyyətlərini öz üzərində daşıyır.

Nə modernizm, nə də postmodernizm tamamlanmamış janrlardır. Bəlkə də, onlar bir-birini tamamlayır, birlikdə bütövü yaradırlar. Postmodernizmə nazik bir kağızdan baxsaq modernizmi görmək olar. (Hasan Akay, s.242). Elə bu səbədəndir ki, postmodernizmi anlamaq üçün modernizmi bilmək lazımdır.

Postmodern mətn çoxmənalıdır və həmin mətnlərin sonsuz interpretasiya imkanları mövcuddur. Bu xüsusiyyət imkan verir ki, postmodernizm özündən əvvəlki bütün fəlsəfələrlə, eləcə də modernizmlə, varislik əlaqəsi yaratsın. Türk ədəbiyyatında postmodernizm modernizmlə yanaşı inkişaf etdiyinə görə bu iki fəlsəfə arasında mütləq çizgi çəkmək doğru olmaz.

Modernizmin əsas obyekti insan olsa da, postmodernizmin obyekti mətndir. Hətta cərəyanın liderlərindən olan Derida onu "Cənab mətn" adlandırmışdır. (Nərmin Kamal (2012)) Postmodernistlər modernistlər kimi keçmişdə yazılmış heç bir mətni məhv etmirlər. Keçmişi təzədən dərk edib, bir mətn üzərində yenisini qururlar.

Postmodern alim Fukonun fikrincə isə, bilik obyektiv ola bilməz. Çünki biliyə birmənalı yanaşmaq doğru deyil. Çünki bilik mütləq iqtidarın dilindən səslənən fikirdir. Poststrukturalistlər Fukonun fikirini bir az da inkişaf etdirirlər. Onların fikrincə, "hakim idealogiyalar" öz

informasiyalarını insanlara çatdırmaq üçün dili silah kimi istifadə edirlər. Beləliklə, onlar dillə idrakı eyniləşdirirlər. (Q.Quliyev 156,157) Buradan belə qənaətə gəlmək olar ki, dillə insanları ustalıqla manupulyasiya etmək olar. Belə ki, yazılı mədəniyyət fenomenini bir daha nəzərdən keçirən poststurukturalistlər fərdin özünüdərkini mətn toplusuna bənzətməkdən, mətndən kənarda heç bir şeyin olmadığını, dünyanın ucsuz-bucaqsız mətndən ibarət mətndən ibarət olduğunu söyləməyə çəkinməmişlər.

Postmodernizmin digər cərəyanlardan bir fərqi də ondan ibarətdir ki, o digər "izm"lərdən aslı deyildir. Məlum olduğu kimi modernizm bitdikdən sonra onu inkar edərək yaranan postmodernizm "azad insan" düşüncəsinə önəm verir. Beləki, modernizmin yaranmasına səbəb olan rasionalizm, determinizm və pozitivizm kimi insanı düşündürən, baş verən hadisələrə səbəb-nəticə axtaran və "ilahi ədaləti" sorğulayan cərəyandan fərqli olaraq postmodernizm daha rahat yaşamağa üstünlük verən modeldir.

Postmodernizm bütün fikirləri, deyilmişlərin hamısını birləşdirib plüralist, bir-biri ilə iç-içə, hər şeyi qəbul edən, bəzən də istehza edən cərəyandır. Onlar modernistlərdən fərqli olaraq hər şeyi ciddiyə almırlar. Elə bu fikirlərə görə də bu cərəyan bəzən qeyri-ciddi idealogiya kimi qəbul edilir.

Bundan başqa modernizm eyni zamanda postmodernizmin yaranmasına zəmindir və bir-biri ilə sıx əlaqəli cərəyanlardır. Yuxarıda deyildiyi kimi, dialektik inkarda heç də cisim və hadisəni yox etmək, məhv etmək yəni onu büsbütün və tamamilə birdəfəlik inkar etmək nəzərdə tutulmur. Beləki, modern mətnlərdən postmodern mətnlərə keçid mərhələli baş vermişdir.

Türk ədəbiyyatında Oğuz Atayın 1972-ci ildə nəşr olunan "Tutunamayanlar" romanı bəzi ədəbi dairələr tərəfindən ilk modernist roman kimi qəbul edilərkən, Attila İlhanın 1953-cü ildə nəşr olunan "Küçədəki adam" romanı bəziləri tərəfindən ilk modern roman kimi qəbul edilir. Türk ədəbiyyatında Oğuz Atay və Attila İlhana qədər Abdülhak Şinasi Hisar, Ahmet Hamdi Tanpınar, Peyami Safa kimi Qərb romanının təsiri altında yeni roman və hekayə texnikaları ilə yazan sənətkarlar var idi. Abdülhak Şinasi "Hisar Fəhim bəy və biz" (1941), "Çamlıcada eniştemiz [1]" (1944) və "Nizamettin bəyin Əlafranqalıq və Şeyxliyi" (1952); Ahmet Hamdi Tanpınar "Hüzur" (1949) və "Saatları qurma institutu" (1961) romanlarında, Peyami Səfa isə "Madmazel Noraliyanın kürsüsü" (1949), "Yalnızıq" (1951), "Biz insanlar" (1959) romanlarında modernizmin bir çox elementləri var idi. Bu sənətkarlar həm romana baxışları, həm də yeni roman anlayışı ilə yazdıqları əsərlərlə türk ədəbiyyatı tarixində modernizmin öncülləri və carçıları olmuşdur.

Yuxarıda göstərildiyi kimi türk ədəbiyyatında postmodern mətnlərin xüsusiyyətlərin izləri romanlarda tədricən yaranmışdır. Türk ədəbiyyatında, postmodern xüsusiyyətlərdən olan metatəhkiyə və intertekstuallıq[2] realist romanlarda da var olmuşdur. Məsələn: Metatəhkiyə ("metafiction")[3] Rəşad Nuri Güntəkinin "Çalıquşu" romanında özünü göstərir. Romanın sonuna yaxın, yəni, V fəslində baş qəhrəman Fəridə belə deyir: "Bu oxumayacağın defteri ben senin için yazdım, Kamran. Evet, ne söğledim, ne yazdımsa hepsi senin içindi". ( R. N. Güntekin, (2017); 325) Bu fəsildən sonra hadisələr III şəxsin dilindən nəql olunmağa başlayır. Belə ki, oxucu romanı iki şəxsin dilindən mütaliə edir. Birincisi günlüyü yazan Fəridə, ikincisi isə həmin günlüyü tapıb hadisələrin sonrakı axışını qələmə alan yazardır. Bu xüsusiyyət postmodern ədəbiyyatda metatəhkiyə adlanır. Roman postmodern olmasa da qərbləşmənin təsiri nəticəsində yazıldığı dəqiqdir.

Bəzi postmodern mətnlər də var ki, yazar fərqində olmadan onu yaratmışdır. Bunlardan Oğuz Atay yaradıcılığını nümunə gətirmək olar. Həm postmodernist, həm də modernist yazıçı olan Oğuz Atay hələ 1971-ci ildə "Tutunamayanlar" romanını yazmışdır ki, bu roman postmodernizmin bütün xüsususiyyətlərini özündə əks etdirir. Ancaq yazıb-yaratdığı dövrü də nəzərdən keçirsək bizə aydın olur ki, yazıçı postmodern əsər yazdığından xəbərsizdir. Görkəmli postmodern yazar Orxan Pamukun da ilk romanlarında modern izlər vardır və bu modern izlər tədricən postmodernizmə çevrilmişdir.

Bəzi mətnlər isə əsl postmodern əsərlərdir, yazıb-yaradan yazıçılar necə bir əsər yazdıqlarının fərqindədirlər. Məsələn, Orxan Pamukun son dövrlər yazdığı romanlar, Elif Şəfəq, İhsan Oktay Anar, Lətifə Tekin və.s. kimi yazarlar bilərəkdən, postmodern yazıya uyğun ədəbi əsərlər yazmışdır. Hətta Qərb ədəbiyyatında yazılmış postmodern mətnlərin üzərində öz əsərlərini yaradırlar. Orxan Pamuk

[1] Enişte – bacının yoldaşı, xalanın əri və s.
[2] İntertekstuallıq- mətn içərisində mətn
[3] Metatəhkiyə – nəsr içərisində nəsr deməkdir. Aşağıda ətraflı məlumat verilmişdir.

"Mənim adım qırmızıdır" romanını struktur olaraq qərb ədəbiyyatının görkəmli postmodernist yazarı Umberto Ekonun "Qızılgülün adı" romanı əsasında yazması buna nümunə ola bilər.

**NƏTİCƏ**

Beləliklə, 1980-ci illərdə insanlar təkcə Türkiyədə deyil, bütün dünyada mühüm sosial dəyişikliklərin şahidi oldu və bu dəyişikliklər türk ədəbiyyatından da yan keçmədi. Göründüyü kimi türk ədəbiyyatında modernizmdən postmodernizmə keçid qısa vaxt ərzində olsa da uzun məsafə qət etmişdir. Türk toplumunda ənənin inkarı və yeninin yaranmasının tərəfdarı olan modernizm o qədər də inkişaf etməmişdir. Belə ki, 1980-ci illərdən Türkiyənin modernləşmə layihəsi ilə postmodernləşmə və qloballaşma prossesi baş verdi. İndi isə ədəbiyyatda "bu gün" ənənə içində axtarılır, başqa sözlə desək, müasirləşmək üçün ənənəvi olmağa çalışılır və bu xüsusiyyətlər bütün postmodern ədəbi numunələrdə özünü büruzə verir.

**ƏDƏBİYYAT SİYAHISI**

1. Qorxmaz Quliyev(2012) XX əsr ədəbiyyatşünaslıq konsepsiyaları, Bakı:Çaşıoğlu, s.343
2. Mikhail Bakhtin (2001) İngilisce çeviren: Cem Soydemir "Karnavaldan romana", İstanbul: Ayrıntı yayınları, s.398 Karnavaldan Romana (wordpress.com)
3. Nərmin Kamal (2012) Umberto Eko və Postmodernizm fəlsəfəsi; 204
4. Orhan Pamuk, (1998). "Benim adım Kırmızıdır", İstanbul, İletişim yayınları, 470 s.
5. Orxan Pamuk (2002) Kar, İstanbul: İletişim Yayınları, s.436
6. Orxan Pamuk (2013) "Atamın bavulu", Bakı: Qanun nəşriyyatı, s.100

# AZƏRBAYCAN ƏDƏBİYYATINDA XAN QIZI XURŞİDBANU NATƏVAN OBRAZI

**Pəri Muradlı**
OYU, Humanitar və dillər fakültəsi
Filologiya ixtisası, 4-cü kurs
Elmi rəhbər:Fil.f.d.dos. Nuridə Muxtarzadə
perimuradli@icloud.com
BAKI, AZƏRBAYCAN

**XÜLASƏ**

Tezisdə Azərbaycan ədəbiyyatında qəmli ana obrazını yaratmış xan qızı Xurşidbanu Natəvandan bəhs olunmuşdur.Tarixən hökmdarlar, böyük dövlət xadimləri, öz əməli ilə yadda qalır, xalqın taleyində oynadığı əhəmiyyətli rola görə əbədiləşir, ölməzləşir. Bir də elm, ədəbiyyat, incəsənət xadimləri, şairlər, yazıçılar öz əsərləri ilə əbədiyaşarlıq qazanır, ölməzliyə qovuşur. Azərbaycan ədəbiyyatının tanınmış simaları içərisində qadın şairlərin xüsusi yeri və çəkisi var. Məhsəti Gəncəvi, Heyran xanım Dünbüli, Fatma xanım Kəminə, Ağabəyim ağa, Xurşidbanu Natəvan, Nigar Rəfibəyli, Mədinə Gülgün, Mirvarid Dilbazi və b. ədəbiyyat tariximizə orijinal üslubları, incə ruhlu şeirləri ilə imza atmışlar. Onların hər biri əsərlərində təkcə şairə kimi deyil, sevgilərinə, ailələrinə sədaqətli qadın, övladlarına qayğıkeş, təəssübkeş ana, torpağın, vətənin, elin dərdini zərif çiyinlərində daşıyan, sirr dağarcıqlı, bir gözü ağlayanda bir gözü gülən, sevincilə kədəri əkiz doğulan, "kəbini bir rübaiyə kəsilən", "səsində yerin-göyün dərdi olan" Azərbaycan qadınının obrazı kimi çıxış edirlər. Onların hər biri öz talelərini, həyatlarını şeirdə əbədiləşdirmiş, dünyanın hər üzünü görən, yaşayan və yaşada bilən bir xarakter, bir tale, bir qadındır. Hər iki məziyyəti özündə birləşdirən belə tarixi şəxsiyyətlərdən biri də incə zövqlü, böyük ürəkli, , mütəfəkkir şair, cəsarətli dövlət xadimi, Qarabağın sonuncu hakimi Mehdiqulu xan Cavanşirin qızı Xurşidbanu Natəvandır..Xan qızı olduğu həyatının bütün mərhələlərində xanlara layiq xüsusiyyətləri ilə meydana çıxırdı.Mənsub olduğu soyun,kökün ,nəslin böyüklüyü onun xarakterində özünü büruzə verir,əməlləri bunu təsdiq edirdi. Xalqın maariflənməsində, yaşadığı şəhərin abadlaşmasında , ədəbiyyatın inkişafında böyük rol oynamışdır.Məclisi-üns" ədəbi məclisini yaradaraq onun xərclərini öz üzərinə götürmüşdür.

**AÇAR SÖZLƏR: Xan qızı Natəvan, Qarabağ, Ədəbiyyatda obraz**

## GİRİŞ

Azərbaycan xalqının yeni tarixi, prinsip etibarilə, Prezident, Ali Baş Komandan cənab İlham Əliyevin bu möhtəşəm şüarı ilə başlayır: "Qarabağ Azərbaycandır!" Qarabağ deyəndə isə bir çox böyük şəxsiyyətlərin Vətən uğrunda mücadiləsi, mübarizələrlə dolu tərcümeyi-halları göz önünə gəlir. Dünyaya xan qızı kimi gələn ,lakin həyatın keşməkeşlərinin natəvanına çevrilən ,ömrünün bir hissəsini Xurşid ,bir hissəsini isə Natəvan kimi yaşayıb -yaradan Azərbaycanlı qadın haqqında danışmaq istəyirəm.Şuşanın gözəl təbiətini misralayıb sətirlərə köçürən ,bəzən aşiq,bəzən təbiət vurğunu,bəzən kədər şairi, bəzən dövrana,haqsızlığa qarşı çıxan söz-sənət adamından bəhs etmək istəyirəm.Doğulduğu ata-baba yurdu -Şuşası 30 il işğal altında qalan,qəbri,məqbərəsi dağıdılan ,sümükləri yağı düşmən tərəfindən oğurlanan ,həm yerliləri doğmasından qoparılan ,bütün tarixi ,mədəniyyət abidələri məhv edilən bir şəhərin qızından-Natəvandan.Bir də azan olunan yurdunda bu gün ruhu azad olan dolaşan ,məqbərsi bərpa olunan Şuşa gözəlindən ,poeziyası ömrünün ahənginə çevrilən ilk Azərbaycanlı şairədən danışmaq istəyirəm. Qarabağın sonuncu xanı Mehdiqulu xan tək övladına anası Xurşidbanunun adını vermişdi.Xan nəslinin sonuncu vərəsəsi Xurşidbanu tək övlad olduğu üçün sarayın tək incisi çağrılırdı.Yaxşı tərbiyə görən bu qız yaxşı da təhsil almışdı.Ərəb,fars dillərini mükəmməl öyrənməsi onun ədəbiyyatımızın klassiklərini oxumasına şərait yaratmışdı.Qasım bəy Zakir,Mirzə Camal Qarabağı ,Mirzə Adıgözəl bəy Qarabağı,Əhməd bəy Cavanşir kimi qohumlarının ruhu şeir üstə köklənən bu qızın şairə kimi formalaşmasında xüsusi əmək̆ləri olmuşdu.Şuşanın bənzərsiz təbiət gözəllikləri isə sən demə bu Şuşa gözəlinin ruhunu zamanla oxşayacaqdı.Bu oxşamalarla o,gözü önündəki gözəllikləri misralayıb gözəl sənət əsərləri meydana çıxaracaqdı.Belə də oldu.Xurşidbanu özü tək inci idi,özü kimi də ölməz,həmişəyaşar incilər yaratdı. Artıq əsr yarımdan çox bir müddətdir ki, estetik təşəkkürümüzdə Xurşidbanu Natəvan imzalı fenomenal bir şəxsiyyətin müstəsna yeri vardır. Xüsusən müstəqillik dövrü Azərbaycan rəssamlıq sənətində Qarabağ mövzusuna, eləcə də Xurşidbanu Natəvan mövzusuna müraciət edilməsi ənənə halını alıb və bu da təsadüfi deyil. Xeyirxah əməlləri və nəcibliyi ilə xalq içində çox böyük hörmət qazanmış, "Xan qızı" adı ilə tanınan, görkəmli Azərbaycan şairəsi Xurşidbanu Natəvan gözəl şair və ictimai xadim kimi tanınmaqla bərabər, həm də çox incə dərin zövqə malik rəssam və bədii tikmə ustası olmuşdur. . O, daha çox qəzəlləri və rübailəri ilə məhşurlaşmışdır.Dostluq, humanizm, məhəbbət Natəvanın qəzəllərinin ana xəttini təşkil edirdi. Onun romantik şeirləri isə xoşbəxt olmayan, oğlunu itirmiş qadının hisslərini, əzablarını ifadə edirdi. “ Hər misra onun xoşbəxtliyə, sevməyə, sevilməyə can atmasından, hər dəfə də əlinin boşa çıxmasından danışır. Sanki məhəbbət Natəvan üçün bağçadakı tikanlı qızılgüldür. Hər əlini atıb qoparmaq istəyəndə əlinə batan tikanların arasından süzən qandır.Deyirlər poeziya o zaman təsiredici olur ki,o içdən gələn hisslərlə yazılır.İçdən gələn hisslər isə düşünürəm ki,o zaman təsiredici olur ki,orada əlçatmayan bir hiss olur.Məhz bu zaman oxunan əsər göz yaşartmaq ,ürək sızlatmaq gücünə malik olur.Natəvanın misraları kimi:

Qəm yükün çəkməkdən, ey dil, bir dəm azad olmadım,
Hərçi cəhd etdim, nə hasil, yetmədim cananə mən [5].

Mənə ki, guşeyi-çeşm ilə bir nahən baxdın,
Tez öldürər məni bu mehnəti-nalən, getmə! -deyir.
Nə oldu bülbülə kim, qıldı gülsitan tərkin?
Unutdu güllərini, etdi aşiyan tərkin [5].

Vüsalə yetməyibən zarü Natəvan qaldım,
Edib fələk yenə həsrət o məhcəmalə məni. -deyir [5].

Xurşidbanu Natəvan poeziyasına dalarkən o, hər misrasında vüsala yetməyən, sevdiyinə qovuşmayan bir qadın obrazı kimi canlanır gözlər önündə.

Sən qeyrilər ilə üns tutdun, bilməm niyə yarını unutdun...

Hicran Natəvanın könlünü bərbad etmişdi. O, gizli ağlayırdı, göz yaşlarını hamıdan saxlayırdı. Onun göz yaşları gəncliyinin ilk illərindən axırdı. Lakin çarizm Qarabağda xanlığın davam etdirilməsinə son qoyduğu kimi, Xurşidbanunun da həyatına müdaxilə edəndə, onu öz maraqları naminə seçdiyi adamla evlənməyə vadar edəndə ta dayanmadı. Evlənməyə məcbur oldu, dünyaya övladlarını da gətirdi. Lakin əri Xasay xan Usmiyev onun üzündə gülüş ola bilmədi. Şuşasından aralı

qalan könlü yaralı quş tək qanadlandı, lakin uça bilmədi. Bu qəlb nisgillə doldu, nicran çəkdi. Bu isə həssas şair qəlbi üçün nə deməkdir, aydındır.

Yanar çün Natəvan xəstə, müdam ol atəşi-qəmdən,
Səbur ol, eylə adət şiveyi-ustad, pərvanə! [5]

Birinci evliliyi uğursuz olan Natəvan Şuşaya qayıdır. İkinci dəfə rəiyyət içərisindən olan şuşalı bir nəfərlə ailə qurur ki, bu da bəyləri çox qəzəbləndirir. Bu səbəbdən ömrünün sonunadək töhmətləndirilir. İkinci evliliyində də övladları dünyaya gəlir. Lakin həyatın bir-birinin ardınca vurduğu sillələrdən özünü kimsəsiz, zəif hiss edir. Sanki həyat Xan qızından üz çevirmişdi. Bir anlıq xoşbəxtliyi ona çox görürdü. Bu aralar əziz övladını-oğlunu da itirən şairə dövrandan şikayət edir: nə eləmişəm, görəsən dövrana, bilmirəm ki... Övladının itkisi onu üzür, qəlbini sıxır, göz yaşlarını sel edir:

Yanar canım, oğul, daim sənin nari-fəraqında,
Necə pərvanələr hər dəm yanar şəmin ayağında [5].

Qalıbdır Natəvan nalan, gecə-gündüz olur giryan,
Onun yox dərdinə dərman, neçin gəlməz, neçin gəlməz? [5]

Şairənin həm yaradıcılığına, həm Qarabağın ictimai həyatındakı roluna xüsusi ehtiram bəsləyən yazıçı və şairlər əsərlərində Xan qızı ləqəbi ilə tanınan, Qarabağ xanlığının mənəvi varisi Xurşidbanunun bədii obrazını yaradıb, tarixdəki və yaddaşdakı portretini həm də ədəbi nümunələrdə əbədiləşdiriblər. Xalq yazıçısı İlyas Əfəndiyev "Xurşidbanu Natəvan" pyesində, Əzizə Cəfərzadə şairə haqqında oxuduğu, eşitdiyi xatirələr əsasında yazdığı silsilə hekayələrdə, Məmməd Rahim, Hüseyn Arif "Natəvan" adlı poemalarında, Səməd Vurğun və başqa müəlliflər öz əsərlərində onun bədii portretini yaratmışlar. Bu əsərlərdə Natəvan xeyriyyəçi, Qarabağın ictimai-sosial, mədəni həyatında aparıcı sima, istedadlı şairə və rəssam kimi görünür. Natəvan öz şəxsi səadətini başqalarını xoşbəxt etməkdə görən, son dərəcə mərhəmətli və xeyirxah, geniş qəlb və zəngin mənəviyyat sahibi olub. Qeyd etdiyimiz kimi, zəngin mütaliəsi və aldığı təhsil, eyni zamanda, sahib olduğu şəcərə onun əsl şəxsiyyət kimi yetişməsinə təkan verib. Natəvanın vaxtsız övlad itkisi onun həm həyatına, həm yaradıcılığına hüzn və kədər çökdürmüşdü. Şairənin obrazını yaradanlar bu detallara da diqqət yetirmiş, onu həm də bir dərdli ana və qadın kimi təsvir etmişlər Natəvanın obrazına müraciət əsasən iki səbəbdən irəli gəlib: birinci şairənin özünün bir şəxsiyyət kimi maraqlı tale sahibi olmasıdırsa, ikinci səbəb Qarabağın tarixinə olan maraqdır. Belə ki, bu əsərlərdə həmçinin, Qarabağın tarixi keçmişi, ədəbi-mədəni mühiti ilə də tanış oluruq. Xalq yazıçısı Əzizə Cəfərzadə Xan qızı haqqında eşitdiyi, oxuduğu xatirələr əsasında yazdığı silsilə hekayələri 1963-cü ildə kitab kimi çap etdirmişdi. "Dəniz... ah dəniz", "Dünyaya insan gəlir", "Cehizsiz qız", "Vergi", "Ağdam yolunda", "Xan qızı bulağı", "Bu gün sənin yaşıdını gördüm" adlı bu hekayələrdə Xurşidbanunun həyatının müxtəlif məqamlarına, əsasən fəaliyyətinə, yardımsevərliyinə, müdrikliyinə işıq salınmışdı. Xan qızı Natəvanın yaşadığı dövrü, Şuşa və Ağdamda keçən həyatını canlandırmış, eyni zamanda milli adət-ənənələri, xalqımıza aid yüksək əxlaqi dəyərləri özünəməxsus üslubda əks etdirmişdir. Ailə qurmaq, ev-eşik sahibi olmaq istəyən, amma maddi durumu buna imkan verməyən neçə-neçə gəncə kömək etməsi, cehizi olmayana cehiz, çörəyi olmayana çörək, işi olmayana iş verməsi, bulaq çəkdirməsi üçün at belində min bir əziyyətlə ən uğurlusunu tapmaq üçün çəkdiyi çətinliklər bu hekayələrin əsas mövzusudur. Bu hekayələrdə onun tabeliyində olan işçilərlə xoş rəftarı, onların həm özlərinin, həm övladlarının qayğısına qalması, idarəçilik və təssərrüfat işlərindən vaxt tapanda isə incə duyğularını kağıza, kətana və bəzən də tikmələrlə parça üzərinə köçürməsindən də bəhs olunur. "Vergi" adlı hekayədəki bir məqama diqqət çəkmək istəyirəm. Otağında oturub yaradıcılıqla məşğul olan Xurşidbanu küçədəki səs-küyə çölə çıxır, vergi borcu olan bir erməni pinəçinin pristav tərəfindən döyüldüyünü görür. Pristavı tənbeh edən Natəvan ermənini və nəvəsini evinə gətirir. "Qəzəbi soyumuş Natəvan eyvanda əyləşmiş, Gülzamanın təzə paltar geydirdiyi balaca qızı da qucağında oturtmuşdu. Qızcığaz xanımdan aldığı şirniləri yeyir, qara gözlərilə altdan yuxarı bu mehriban xalaya baxırdı. O, hətta çiçi paltarına sevinməyi belə unutmuşdu.

Qızım, adın nədir?
- Hayqanuş.
- Sən kimin qızısan?
- Babamın.

Aralıda diz çökmüş Havanes kirvə minnətdarlıqla deyirdi:

- Qurbanın olum, bəyim, bu, mənim bədbəxt Anuşumun yadigarıdır. Bəlkə eşitmiş olasan, üç il bundan əvvəl havalanıb özünü qayadan atmışdı.

- Eşitmişəm kirvə, sən fikir eləmə, sabah naçalniki çağırtdırıb borcunu özüm verərəm, - sonra da Gülzamanın gətirib onun qarşısında qoyduğu boğçaya işarə ilə sözünə davam etdi

- Bunu isə balaların üçün aparar. Bir az yavanlıq, bir az da xərclikdir. Sonra yenə nə lazım olsa, gəlib deyərsən.

- Çox sağ ol, bəyim, allah bağışlasın, allah səni bizə çox görməsin, əməyin yelə, diləyin selə getməsin, izn ver mürəxxəs olaq.

- Gedin, Allah amanında" [1, s.34].

Mərhəmətli, səxavətli Azərbaycan xanımlarının simvolu olan Natəvan xanımın gün gəlir, nəinki eli, obası, yaşadığı malikanə, hətta qəbri də dizinin üstündə oturtduğu, yalın əyninə paltar, ac qarnına çörək verdiyi Hayqanuşun törəmələri tərəfindən dağıdılıb viran qoyulur, sümükləri belə işgəncəyə məruz qalır. Güllələnmiş abidəsi paytaxtda 30 il intizarla vətənə dönəcəyi günü gözləyir.

Bildiyimiz kimi, Xurşidbanu Natəvan əslən Dağıstandan olan general-mayor Xasay bəy Usmiyevlə evlənmiş və bir müddət Tiflisdə yaşadıqdan sonra Şuşaya köçmüşlər. Bir neçə ildən - təxminən 15 il sonra Xasay bəy Şuşanı, Xurşidbanunu və övladlarını tərk edib ata-baba yurdunda onu gözləyən, ona ehtiyacları olan həmvətənlərinin yanına - Dərbəndə qayıdır. İlyas Əfəndiyevin "Xurşidbanu Natəvan" pyesində görürük ki, Xasay bəy bu ayrılığa çox tab gətirməyib, Şuşaya gəlir və Natəvana deyir ki, mən də səndən öyrəndiklərimi öz vətənimdə həyata keçirmək istədim, imkansız gəncləri xaricə təhsil almağa göndərdim, bir çox xeyriyyəçilik, abadlıq işləri gördüm, amma millətçilikdə ittiham olundum, təqiblərə məruz qaldım. Bilmirəm, qarşımızda Paris, Peterburq var ikən biz niyə burdayıq, gəl əl-ələ verək, çıxıb başqa ölkəyə, xoşbəxtliyimizin arxasınca gedək. Natəvan, - gələcək nəsillər məni qınayar, yox, gedə bilmərəm, - deyib şəxsi səadətini deyil, Şuşada qalmağı, ona ehtiyacı olanların yanında olmağı seçir [4]. Xan qızı gələcək nəsil deyəndə, bizləri nəzərdə tuturdu. Biz - bugünkü nəsil şəxsi xoşbəxtliyini seçdiyi üçün onu qınayardıq, qınamazdıq, bu, başqa mövzudur, amma Xasay bəylə getsəydi, Natəvanın ədəbi-bədii, tarixi yaddaşdakı obrazı bugünkü kimi tam və bütöv olmayacaqdı.

Natəvanın min əziyyətlə Şuşaya "Xan qızı" adıyla məşhur olan bulaq çəkdirməsi, məscidlər, mədrəsələr, körpülər inşa etdirməsi, yol saldırması, ehtiyacı olana əl tutması məlum faktlardır. Bütün bunlar onun haqqında yazılan əsərlərdə də öz əksini tapıb.

İlyas Əfəndiyevin “Xurşidbanu Natəvan” pyesinin əvvəlində Natəvanın Tiflisdə Qafqaz canişini ilə əllərindən alınmış ata-baba torpaqlarını, mülklərini geri qaytarmaq məqsədiylə görüşü təsvir olunur. Ona, siz tək qızsınız, o qədər mülk nəyinizə lazımdır, sualına - mən tək deyiləm, mənim yaşadığım Şuşa şəhərinin içməli suyu, məktəbi, mədrəsəsi yoxdur, mən onlara kömək etməliyəm, - deyir [2, s185]. Yaşının az olmasına baxmayaraq, böyük bir elin qayğısını çəkməyə hazır olan iddialı bir xanım kimi görünür. Əsərin sonuna qədər də Xurşidbanu həmin iddiasında qalır. O, Şuşada çox sayda yaradıcı insanı - musiqiçi, şair, rəssam və xəttatı özündə cəm edən "Məclisi-üns" ədəbi məclisini yaradır, daha sonra geniş fəaliyyəti üçün məclisi sarayına köçürür. Şuşa əhalisinin maariflənməsinə, təhsilinə xüsusi diqqət yetirir.

Elmə, təhsilə, yaradıcılığa xüsusi önəm verən xan qızı məktəb və mədrəsələrin açılmasına yardım göstərməklə yanaşı, ana dilimizin qorunmasına da çalışır, hələ Aleksandr Dümanın Azərbaycana səfəri zamanı dilimizin lətafətinə, musiqililiyinə heyran olduğunu vurğulayır, klassik sənətkarlarımızın məcburən ərəb-fars dillərindən istifadə etmələrinin acısını bu gün də yaşadığımızı ürəkağrısı ilə desə də, böyük ümidlə "Ağalar, nə qədər ki Azərbaycan xalqı yaşayır, Azərbaycan dili də yaşayacaq! Mən Azərbaycan balalarının Homeri, Danteni, Şekspiri, Höteni, Puşkini öz doğma ana dillərində oxuyacaqları günü görürəm!" – deyirdi [2, s 200].

"Xurşidbanu Natəvan" pyesinin əvvəlində Qafqaz canişini şairəylə görüşündə "Mən azərbaycanlıların igidliyinə heyranam. Elə bil ki, Allah özü də onların qəhrəmanlığını gözəl Qarabağ atları ilə mükafatlandırıb", - deyir. Əsərin sonuna doğru isə belə bir epizod var. Parisdə qaçağan atların yarışı keçirilir, Qarabağ atlarının da o yarışda iştirakı gözlənilir. Natəvan atlara baxan Muradəlini çağırıb tapşırır ki, "Yaxşı hazırlaşın! Gərək bizim atlarımız o yarışda birinci çıxsınlar. Eşidirsənmi, birinci! Qoy görsünlər Azərbaycanın yaxşı kişiləri yaxşı atları mərd oğullara tapşırıb gediblər!" Natəvan bununla həm də "Yaxşı kişilər yaxşı atları minib getdi" kimi məşhur el deyiminin əksinə

olaraq bildirmək istəyir ki, Azərbaycanın tarixlər boyu mərdliyi, cəsarəti, hünəri ilə seçilən igidləri bir çox dəyərlərə ləyaqətlə sahib çıxdıqları kimi atlarına da sahib çıxıblar. Yaxşı kişilər atları yaxşı ərlərə qoyub gediblər. O ərlərə ki məhz onların sayəsində Xan qızının düşmən tapdağında qalan yurdu, tarixi torpaqları işğaldan azad edildi.

Natəvan haqqında yazılan əsərlərdə onun haqsız yerə dedi-qoduların obyekti olmasından da bəhs olunur, bu, o zaman idi ki, şairə bu söz-söhbətlərə son qoymaq üçün öz yanında bir həyat yoldaşına ehtiyac duyur və bu dəfə də təmənnalı elçilərə yox, sadə, xalq içindən çıxmış Seyid Hüseynlə ailə qurur. Düzdür, bu dəfə də bədxah və onun mal-mülkünə göz dikən qohumlarının tənə və qınaqlarıyla üzləşir, amma o, öz azadlığını həyat yoldaşının yanında görür.

Xalq şairi Səməd Vurğun da Xurşidbanu Natəvan poeziyasına rəğbət bəsləyir, onun yaradıcılığını Azərbaycan qadınının hiss və yaşantılarının ifadəsi hesab edirdi. Zəmanənin düşüncə və duyğu adamlarına necə darlıq etdiyini, hisslərini çərçivəyə saldığını ürək ağrısı ilə söyləyən şair, Natəvan şeirində böyük insanın qüssə və faciəsinin duyulduğunu vurğulayırdı. Bu kədəri doğuran bir tərəfdən şairənin şəxsi faciəsi, övlad itkisi idisə, digər tərəfdən ictimai problemlər, haqsızlıqlar, bəzən ətrafı tərəfindən anlaşılmaması idi. Səməd Vurğun da lirik şairənin bütün yaradıcılığının Füzuli poeziyasının təsiri altında olduğunu söyləyir, onun ictimai fəaliyyətini, XIX əsrin bir çox böyük şairlərini özündə cəm edən "Məclisi-üns" ədəbi məclisini təşkil etməsini təqdirəlayiq hal sayır, şairənin bir çox söz adamları - o cümlədən, Mirzə Fətəli Axundov, Seyid Əzim Şirvani tərəfindən tərənnüm olduğunu qeyd edirdi. Səməd Vurğun Natəvan lirikasına, poeziyasına olan rəğbətini, həssas münasibətini ona həsr etdiyi şeirində də əks etdirirdi:

Söylə, şeirlərin can verir nədən?
Ağlayır dediyin dərdli qəzəllər.
Bir çiçək qopardı hər gəlib-gedən,
Sənin də payına düşdü xəzəllər
Baxıb qərənfilin solğun rənginə,
O şəhla gözlərin incilər tökdü.
Bir qadın ruhunun dərinliyinə,
Hər axşam yeni bir qaranlıq çökdü [5, s 39].

Şairin bu şeirində həm də Natəvan şeirinin psixoloji çalarları, xarakterik manerası açıqlanır. Oğlunu vaxtsız itirən Xalq şairi Hüseyn Arif poeziyasında özünə həmdərd, həmsöhbət tapdığı Xurşidbanu haqqında "Natəvan" poemasını yazmış və onu oğlu Arifin xatirəsinə ithaf etmişdi. Dərdin, kədərin uzaqları yaxın etdiyini deyən şair poemada xan qızının dolğun portretini yaradıb, onun Şuşa üçün, Qarabağ üçün kim olduğunu, camalı ilə kamalının bir-birini tamamladığını vurğulayıb:

Alim dostlarıma bir sualım var,
Gözəllik adlanan ülvi zirvəyə,
Varmı Xan qızı tək yüksələn gözəl?!
Dərya kamalına günəş camalı,
Həyatda bu qədər tən gələn gözəl?! [4]

Məmməd Rahim "Natəvan" poemasında xanım şairənin obrazını olduqca təbii boyalarla təqdim edib. Poemanın girişində Xurşidbanunun Şuşaya çəkdirdiyi bulağın açılış mərasimi təsvir olunur. Cıdır düzündə baş verən bu şənliyin təfərrüatları o qədər aydın təsvir olunur ki, oxucu özünü o törəni görürmüş kimi hiss edir. Qarabağ atları, ifa olunan "Bayatı-Şiraz", milli Azərbaycan geyimləri, sevinən gözlər və simalar, hətta igidlərin belindəki xəncərin təsviri poetik tablo xarakteri daşıyır. Amma bütün bu ürəkaçan gözəlliyin fonunda əsl səbəbkar - Xan qızı öz malikanəsində xəstə yatağındadır. Ətrafındakı gözügötürmüyənlər isə ona yeni zərbələr vurmaq üçün planlar cızır, haqqında həcvlər yazır, dedi-qodular yayırlar. Natəvanın yanına gələn axund ona ata-babasının xanlığını, hökmranlığını, mal-mülklərini, sahib olduğu torpaqları xatırladıb deyir ki, sənin qəzəlxanlığın xanlığı çökürtdü. Gəl, bu xeyriyyəçilik işlərindən əl çək, xanədanlığı yenidən dirçəldək. Natəvan isə cavabında:

Mənim əcdadımın ocağı, yurdu,
İndi başqa sayaq nur saçmalıdır.
Natəvan da bu gün öz sənətilə,
Xalqa olan dərin məhəbbətilə
İşıqlı günlərə yol açmalıdır [4].

**4.TƏDQİQAT METODU**

Tədqiqat işinin aparılmasında şair və yazıçıların Natəvan haqqında dediyi fikirlərə isnad edərək təhlil və təsvir metodundan istifadə edilmişdir.

**5.NƏTİCƏ**

Nəticə etibarilə deyə bilərik ki, tarixdə yalnız bəşəri ideyaların daşıyıcısı olan şəxsiyyətlər qalır. Xurşidbanu Natəvan belə şəxsiyyətlərdən biridir. Tezisin əvvəlində X. Natəvanın ailəsi və həyatı haqqında ətraflı məlumat verilmişdir. Burada görkəmli şairə haqqında müxtəlif mənbələrdən tanınmış ədiblərimizin yazdıqları fikirlər, həmçinin Natəvanın öz qəzəllərindən seçilmiş misralar oxucuların diqqətinə çatdırılmışdır. Bu gün də Bakının izdihamlı yerlərindən birində qərar tutmuş "Xurşudbanu Natəvan" abidəsi Şərq qadınının ruhundakı nəcibliyi, incəliyi, hassaslığı nümayiş etdirir. Beləcə, şairə altmış ilə yaxındır ki, paytaxtın ən gözəgəlimli yerlərindən birində öz möhtəşəm kürsüsündə əyləşərək gəlib-gedənləri "seyr edir". Sanki indicə canlanacaq və duyğularını kağıza köçürəcək. Bu misraları pıçıldayacaq:

Qoyubdur intizarında, necin gəlməz, necin gəlməz?
Həmişə ahu zarında, necin gəlməz, necin gəlməz? [4]

Beləcə, fikir dəryasına qərq olmuş Xan qızı öz düşüncələriylə baş-başadır. Axıb keçən zamana qoşulmuş insanlar yanından ötüb keçirlər. O isə öz yerindədir. Hər zamankı kimi gözəl, cazibədar, əzəmətlidir.

**ƏDƏBİYYAT SİYAHISI**

1.Cəfərzadə Əzizə.Natəvan haqqında hekayələr, Bakı -2017
2.Əfəndiyev İlyas seçilmiş əsərləri. II cild, Avrasiya press, Bakı-2005
3.Xurşidbanu Natəvan əsərləri. Lider nəşriyyatı, Bakı-2004
4. Xurşidbanu Natəvan – 190: daycest / tərt. ed. A. Məmmədova; ixtisas red. K. Tahirov. – Bakı, 2022.– 37 s.
5. Tək inci kimi parlayan Xan qızı Xurşidbanu Natəvan (metodik vəsait), Bakı-2017
6. https://sia.az/az/news/karabakh/947536.html
7. http://www.anl.az/down/meqale/ses/2022/aprel/791784(meqale).pdf
8. http://www.anl.az/down/meqale/525/2022/aprel/793118.htm

# YEVGENİ BERTELS YARADICILIĞINDA NIZAMI GƏNCƏVİ TƏDQIQATI

**ZÜLFIYYƏ YUSUBOVA**
Bakı Mühəndislik Universiteti
İngilis dili
*zyusubova@beu.edu.az*
BAKI, AZƏRBAYCAN

**XÜLASƏ**

Tədqiqat işi sovet dünyasının dəyərli yazıçısı Yevgeni Bertelsin Azərbaycan ədəbiyyatının zəngin irsi olan Nizami Gəncəvinin əsərlərinin araşdırılmasına həsr olunmuşdur. Tədqiqatın geniş oxucu kütləsinə çatdırılmasında Oxford universitetində Nərgiz Paşayevanın rəhbərliyi ilə yaradılmış mərkəzin xüsusi rolu olmuşdur. Bertelsin böyük bir komanda ilə işləyib yekunlaşdırdığı bu tədqiqatın nəticə ingilis dilinə tərcümə olunaraq mərkəzin kitabxanasında olması, Azərbaycan ədəbiyyatının geniş oxuyucu kütləsinə şatmasında müstəsna rolu olacaqdır. Mərkəzin fəaliyyəti təkcə bununla məhdudlanmır, belə ki , arxeoloji tədqiqatların aparılması, faktların təhrif olunmadan təqdim olunmasında xüsusi diqqət göstərir. Bu da qədim, zəngin irsimizin nəinki Azərbaycan gəncinə eləcə də, xaricdə yaşayan soydaşlarımıza, ədəbiyyatımızla maraqlanan hər bir gəncə doğru məlumatların ötürülməsini təmin edir.Yaşadığı dövrün çətinliyini, əzab əziyyətini, isanların uğradığı ədalətsizliyi daima ifşa edən Nizami Gəncəvi hər zaman maraq obyekti olmuşdur. Şair özü də dəfələrlə qeyd

etmişdir ki, saray yazıçısı olmaqdan, yersiz yerə şahları tərif etməkdən çəkinmişdir. Bununla belə qeyd etmək lazımdır ki, yazdığı poemaları həsr etdiyi şahlara həsr edərkən onlara nəsihətlər vermiş, ölkəni necə yaxşı idarə etməyi məsləhət vermişdir. Dövrün şərtlərini nəzərə alaraq Nizaminin bunu etməsi böyük risk idi. Ancaq o heç zaman bundan çəkinməmiş, öz adını, reputasiyasının bunun üçün istifadə etmişdir. Yaradıclığının əsasını poemaları olan şair, hər birində əlindən gələn üsullarla cəmiyyətin rastlaşdığı ədalətsizliyi vurğulamış, İdarəçilikdə olan narazılıqları yuxarı təbəqələrə çatdırılmasına nail olmuşdur. Mənəvi dəyərlərə yüksək qiymət verən şair övladı üçün olan nəsihətlərini, eyni zamanda gənc nəslə vermək istədiyi töhvəni də əlinə düşən hər fürsətdə böyük məharətlə vurğulamışdır. Tədqiqatın əsas məqsədi bu böyük yazıçının əsrlər keçsə də elmi, fəlsəfi əsərlərinə yenidən diqqət çəkmək, onların dünya oxuyucusuna çatdırılmasında görülən işləri vurğulamaqdır.

**AÇAR SÖZLƏR: Oxford, POEMA, NIZAMI**

**SUMMARY**

The research work is dedicated to the study of the works of Nizami Ganjavi, a rich heritage of Azerbaijani literature, by Yevgeny Bertels, a valuable writer of the Soviet literary world. The center created under the leadership of Nargiz Pashayeva at Oxford University played a special role in bringing the research to a wide audience. The results of this research, which Bertels worked with a large team and concluded, will be translated into English and will be in the library of the center, it will have an exceptional role in the spread of Azerbaijani literature to a wide readership. The activity of the center is not limited to this, as it pays special attention to conducting archaeological research and presenting facts without distortion. This ensures the transmission of information about our ancient, rich heritage not only to the young people of Azerbaijan, but also to our compatriots living abroad, to every young person who is interested in our literature. Nizami Ganjavi, who constantly exposes the hardships of the time he lived in, the suffering and injustice suffered by people, has always been an object of interest. The poet himself has repeatedly stated that he refrained from being a court writer and praising kings unnecessarily. However, it should be noted that while dedicating the poems he wrote to the kings, he gave them advice and advised them how to manage the country well. Taking into account the conditions of the time, it was a big risk for Nizami to do this. However, he never shied away from this and used his name and reputation for this. The poet, whose poems are the basis of his creativity, emphasized the injustice faced by the society in each of the ways he could, and succeeded in conveying the dissatisfaction in the administration to the upper classes. The poet, who highly values moral values, skillfully emphasized his advice for his children, as well as his contribution to the younger generation, at every opportunity. The main goal of the research is to draw attention to the scientific and philosophical works of this great writer even after centuries, and to emphasize the work done in bringing them to the world readers.

**KEY WORDS: OXFORD, POEM, NIZAMI**

## GIRIŞ

XX əsrin Şərqşünas alimi, nümünəvi professor Yevgeni Eduardoviç Bertels orta əsrlər Azərbaycan ədəbiyyatının, dünya şöhrətli Azərbaycan şairi Nizami Gəncəvinin poetik irsinin tədqiq, tərcümə və təbliğ olunmasında əsrarəngiz xidmətləri ilə seçilmişdir. Nizami idelogiyasının nəinki yaxın şərqdə eyni zamanda bütün dünya oxuyucusuna çatdırılmasında böyük xidməti olmuşdur. Əsərin geniş oxuyucu kütləsinə çatırılmasında Oksford Universitetinin nəzdindəki Mərkəzin bilavasitə professor Nərgiz Paşayevanın xüsusi təşəbbüsü olmuşdur. Mərkəzin Nizami Gəncəvinin adını daşıması onun Azərbaycan milli dəyərlərinə sahib çıxması, Nizami uzunömürlüyünün xarakterik göstəricisidir. Bu minvalla oxuyucular Azərbaycan ədəbiyyatının incisi olan Nizami haqqında öz doğma dillərində oxuyub, öyrənə bilirlər. Əsərdə bir neçə dünya şöhrətli alimlərin, yazıçıların fikirləri verilmişdir. Bunlardan bir neçəsini vurğulamaq istəyərdim "İ.V.Höte Nizami Gəncəvini "Bütün zamanların və xalqların şairi" hesab edirdi", H.Heyne isə deyirdi "Almaniyanın öz böyük şairləri var. Ancaq onlar Nizami ilə müqayisədə kimdirlər ki?" Əsərində tarixi faktlara önəm verən Bertels Nizami tarixinin qədimliyindən ancaq eyni zamanda əsrlər keçcə də müasirliyindən dəfələrlə söz açmışdır. Qısaca riyazi araşdırma aparsaq təxminən 880 il əvvəl yalnız öz doğma diyarında yaşamış birinin günümüzə qədər süzülərək ən yaxşılar içərisində qalması onun nəinki dövrünün eyni zamanda günümüzün mükəmməli olduğunu sübut edir. Qeyd etdiyim kimi sadəcə doğulduğu torpaqlarda

yaşayan, heç vaxt saray yazıçısı olmayan Nizami Gəncəvinin əsərlərindəki coğrafi ünvanlara baxsaq, onun yaradıcılığının əhatə dairəsinin necə geniş olduğunu görərik. Bu vaktlar onun geniş dünyagörüşünün, tolerantlığının bilavasitə nümunəsidir (4).

Görkəmli şairimiz Nizami Gəncəvinin nəinki Azərbaycan və Yaxın Şərq eləcə də bütün qərbə tanıtdırmaq lazım idi. Bunu qarşısına bir məqsəd kimi qoymuş Yevgeni Bertels şairin 800 illik yubleyinə xüsusilə hazırlaşmış, Nizaminin portretinin hazırlanma prosesində layiqincə iştirak etmişdir. O deüşünürdü ki, Nizami yaradıcılığının dünya oxuyucusuna çatdırılması üçün hələ xeyli iş görmək lazımdır. Bu yolda o, "Böyük Azərbaycan Şairi Nizami"-adlı əsərini hazırlamışdır. Kitabın hazırlanmasına xeyli vaxt və zəhmət tələb olunmuşdur. Belə ki Bertels tarixi faktları zərgər dəqiqlikliyi ilə nəzərdən keçirmiş, Gəncləri bu tədqiqat işinə cəlb edərək müasir yanaşmanı diqqətə almışdır (4).

Əsərdə tarixi faktları əsas alaraq çıxış edən yazıçı dövrün özbaşınalıqlarından, idarəetmə insanlarının savadsızlıqlarından bəhs edir. Savadsızlığın verdiyi özbaşınalığı qeyd edən yazıçı getdikcə pisləşən vəziyyətin Səlcuqların hakimiyyəti ilə nisbətən düzəlməsinə və əhali arasında birliyin başlamasına diqqət çəkmişdir. Saray ədəbiyyatı getdikcə güclənmiş və görkəmli yazıçı və sənətkarların onun ətrafında birləşdiyini deyən yazıçı Nizaminin heç vaxt bu axına meyili olmadığını əksinə "Saray Şairi" adından daima üzaq durduğunu vurğulamışdır. Nizami uzaqgörənliyi onun saray aşiqi olan həmkarlarından fərqləndirirdi. Çünki, o azacıq bir xəyanət şübhəsində belə öz ləyaqət və şöhrətlərini itirən şairlərin aqibətini görürdü. Nizaminin əsl istəyi şəhər ədəbiyyatının güclənməsi və inkişafı idi. Bu yolda cəsarəti və fəaliyyəti hədsiz müsbət idi. Xəqani, Fələki və başqa ustadların başına gələnləri öz poemalarında dəfələrlə qeyd edən şair bu titulun ağırlığını vurğulayır.

Digər tərəfdən Nizaminin doğma şəhərinə olan bağlılığı onu saraydan uzaq etmişdir. Şairin vətəni kultur və ədəbi həyatın mərkəzi Gəncə şəhərinə olan bağlılığını şair öz pomalarında dəfələrlə vurğulamışdır. Bu mərd insanları, güclü və dözümlü əqidəsi olan şəhərə vaxtaşırı müsibətlər baş vermişdir. Bəzi fars mənbələrində Nizaminin nəslinin Qum şəhərində olduğunu qeyd etsələr də, bu təşəbbüsləri rədd etmək zəruri görünür. Bütün həyatını Gəncədə yaşayıb yaradan şair onun adını özünə təxəllüs götürmüş, əsərlərində özünü Gəncəvi, yəni Gəncəli olaraq qələmə almışdır. Dövrün elm və bacarıqlarına sahib olan yazıçı həmkarlarından hər zaman fərqlənmiş, fəlsəfə elmini mənimsəməsi ilə dövrün müsəlman alimlərini geridə qoyurdu. Onun astronomiya haqqında biliyi, savadı da fəlsəfə ilə eyni ölçülürdü. Hətta onun əsərlərindən astronomiya terminologiyası lüğəti düzəltmək olar. Onun biliyi bununla da məhdudlaşmırdı. O dövrdə Ərəb dilini bilmədən nəinki şeir yazmağın, hər hansı bir elm öyrənməyin mümkün olmadığını nəzərə alsaq Nizaminin mükəmməl səviyyədə ərəb dilini dildiyini qətiyyətlə söyləyə bilərik. Bütün bunları nəzərə alıb onun layiqincə saray şairi ola biləcəyini görürük, lakin o ləyaqətini və şərəfini üstün tutaraq boş şöhrət və labüd ölümdən uzaq durmağa nail olmuşdur. Əsl məqsədi şəhər və kənd zəhmətkeşlərinin yaşayışını müəyyən qədər yaxşılaşdırılması idi. İstisna hallarda şahlara poema ithaf etsə də, bunlar məsləhət xarakterli mahiyyət daşımışdır. Dövrün şərtlərini nəzərə alaraq onun bu cəsarəti təqdirəlayiqdir.

Nizami epoxasının qısa təhlilini verən yazıçı Nizami yaradıcılığının digər dillərə tərcümə olunmamasını əsas gətirərək onun əsərlərinin qısa icmalını vermiş və daha çox oxuyucu kütləsinə çatması üçün əlində gələni edəcəyini vurğulamışdır. Əsərlərin məzmununu ümumi şəkildə qeyd edərək onların ictimai və bədii əhəmiyyətini müəyyən etməyə çalışır. Ərzincan hakimi Bəhram şaha ithaf etdiyi Sirlər xəzinəsi poemasının yaranmasında Qəznəvi şairi Məcdud Sənainin "Həqiqətül-hərayiq" – ("Həqiqətlər bağı") adlı poeması müəyyən təsir göstərmişdir. İlk baxışda poema sufilik ünsürü kimi görünsə də, mahiyyətinə endikcə onun əsas vəzifəsinin – bu dünyanın həyat şərtlərini nizamlamaq, ölkənin maddi və mənəvi rifahının tımin edilməsi yollarını hökmdarlara təlqin etmək olduğunu görürük. Bundan başqa poemada Nizami əsas olaraq cəmiyyətin ədalətsizliyini göstərmək və onun aradan qaldırılması yollarını vurğulamaqdır. Bütün bu ideal dövlət fikirləri həyatı boyunca onu düşündürmüşdür. Həyatının son dövrlərində yazmış olduğu "İskəndərnamə" poeması da bu dövlət təsviri ilə yekunlaşır (5).

Onun yaradıclığında insan obrazı xüsusilə sevilmiş və mənəvi dəyərlərə yüksək qiymət verildiyinin şahidi oluruq. Belə ki, Sultan Səncər və qarı dialoqunda qoca zalımın qarşısında mərdcəsinə durur, zalım isə əsəbindən əllərini ovuşduraraq onun gözlərinə baxa bilmir. İkinci poeması "Xosrov və Şirin"- də isə əsas olaraq şifahi rəvayətləri bir araya toplamışdır. Şirinin Xosrova olan eşqini özünün həyat yoldaşına olan bağlılığı ilə əlaqələndirmişdir. Əsərin qadın qəhramanı çox çətin

müabarizələrdən sonra öz sevdiyinə qovuşmuş və qısa müddət sonra onu itirmişdir. Ölüm səhnəsinin təsvirində qadının necə vəfalı və sədaqətli olmasını görürük. Bununla müəllif bizə ilk poemasında olduğu kimi insan xarakterini bütün dolğunluğu ilə qələmə vermişdir. Poema dünyanın faniliyini, heç bir səadətin əbədi olmamasını oxuyucularına təlqin edir. Nizaminin dili hər zamankı kimi mükəmməl idi.

Növbəti şah əsəri olan Leyli və Məcnun poemasını yazıçı istəksiz olaraq şirvanşahın sifarişi üzərinə yazmışdır. Nizamidən əvvəl bu mövzuda da rəvayətlər mövcud idi. Qeys adlı bir gəncin özünün uşaqlıq sevgisinə olan sədaqəti poemada əsas götürülmüşdür. Daha sonra Qeysin öz eşqindən necə Məcnuna çevrilməsinə başlayır. Onun sevgisinin obyektiv deyil əslində hissi olduğunu göstərir. Leylinin atasının onları sevgisinə əsas maneə kimi göstərən yazıçı onun ölümündən sonra bu çətinliklərin bitmədiyini və artıq Leylinin evli olduğunu qeyd edir. Ancaq bununla yanaşı uzaqdanda olsa dayısı Səlimin köməkliyi ilə onlar görüşməyə nail olurlar. Nə atasının, nə də anasının ölümü Məcnunu öz sevgisində uzaqlaşdırmır, əksinə onu daha da kədərləndirərək qəhərə boğur. Çöllərdə, səhralarda eşq əzabı çəkən qəhrəman Leylinin ərinin öldüyünü eşitdikdən sonra belə ona qovuşmaq istəmir. Bütün bunlardan sonra Leyli də bu əzaba dözməyərək ölür. Məcnun isə onun məzarı üzərində əzab çəkməyə başlayır. Poema onun ölümü ilə bitir. Şair müxtəlif mənbələrə əsaslanan məlumatlar dolğun, təbii bir əsər yaratmışdır. Onun əsas məqsədi cəmiyyətə müsbət təsir göstərmək onu yaxşıya doğru dəyişmək idi. Poema Nizaminin oğluna olan nəsihətnaməsi ilə başlayır. O burada oğlu ilə müsahibə aparır, demək istədiyi öyüd nəsihətləri bildirir. Bu da təsadüfi deyildi, çünki burada üç növ ata sevgisi mövcud idi. 1) Məcnunun hər şeyə güzəştə gedərək onun fəlakətə düçar olmasına zəmin yaradan, 2) Özünün reputasiyasını qızının xoşbəxtliyindən üstün tutaraq onun düşüncələrini nəzərə almayan, 3) Nizami özü isə oğlunu sevir, həyata ayıq baxır, onu faydasız fikirlərə qərq olmaqdan uzaq tutan ata.

Ömrünün sonlarına yaxın şair bütün həyat təcrübəsini bir yerdə yekunlaşdırmaq, gələcək nəsilə vermək istədiyi töhvələri burada qeyd etmək istəmişdir. Bu məqsədlə o özünün ən geniş əsəri olan "İskəndərnamə" poemasını yazmışdır. İskəndər obrazının seçilməsi təsadüfi deyildi, bu yolla o poemaya müxtəlif fəlsəfi fikirlər daxil edəcəkdi. Nizami Makedonyalı İskəndəri ədalətli hökmdar, mənəvi və dünyəvi idarəçiliyə hakim bir sərkərdə olaraq görürdü. Bununla da, o əvvəlki poemalarında ətraflı qeyd edə bilmədiyi dünyanı idarə etmək mövzusuna geniş yer vermişdir.

Nizami yaradıclığını tədqiqatlar, müqayisələr vasitəsilə araşdıran yazıçı onun ədəbi zəngiliyinin kiçik bir hissəsinə toxunduğunu qeyd edir. Nizami təhlilinin qısa bir kitabşada yox on cildlərə sığan bir irs olduğunu qeyd edən yazıçı gələcəkdə belə bir tədqiqatın olacağına şübhə duymur. Bundan sonra da qarşıda görüləsi işlərin olduğunu qeyd edərək, böyük şair tərəfindən bizə qoyulan zəngin sərvətin həqiqətən mənimsənilməsini və gələcək nəsil üçün çatdırılmasının vacibliyini vurğulayır. Sonda Nizami mövcudiyyətini 3 qrupa ayıraq - 1) Nizaminin sosial ictimai əhəmiyyəti, 2) Onun ədəbi əhəmiyyətivə 3) təsir problemləri. Göründüyü kimi hər 3 mövzu bir-biri ilə qırılmaz əlaqədədir. Onun milli-mənəvi dəyərlərə yüksək qiymət verməsi, elinə obasına sadiq olması əsərlərində dəfələrlə vurğulanmışdır. İkinci bir məsələ isə insan problemi idi. Onun yaradıclığının əsas motivi insana qarşı böyük məhəbbət, diqqət və qayğı idi. Özündə Şərq və Qərb ənənələrini cəmləşdirən şair hər iki mədəniyyətin ünsürlərini əsərlərinə tətbiq etmişdir (1).

**NƏTICƏ**

Nizami yaradıcılığı tədqiqatının əsas elementlərini bu qısa icmal şəklində göstərməyə çalışdıq. Təbii ki, dahi şairin geniş təhlilini daha böyük formatda vermək olar. Əsas məqsədimiz onun yaradıclığını dünya ədəbiyyatına Nizami töhvəsini layiqincə çatdırılmasında azca da olsa nail olmaqdır. Təhlilimizin məqsədlərini ayrı-ayrı hisələrə ayırsaq 1) Nizaminin sosial-ictimai əhəmiyyəti, 2) onun ədəbi əhəmiyyəti, 3) təsir məsələləri olaraq qeyd edərik. Bu üç qrup bir-biri ilə ayrılmaz vahiddir. Biz də bu vahidləri olduğu kimi əlaqəli şəkildə təqdim etməyə çalışdıq. Azərbaycan oxucuyusu ilə yanaşı ingilis oxuyucusunun da diqqət və marağını çəkəcəyindən əminik.

**ƏDƏBIYYAT SIYAHISI**

1. Yevgeni Bertels, (2017). Böyük Azərbaycan şairi Nizami, 168 səh
2. http://anl.az/el/emb/nizami/haqqinda/haqqinda/Azf-299119.pdf
3. https://az.trend.az/azerbaijan/society/2764436.html
4. https://science.gov.az/ru/news/open/15605

# ƏBDÜRRƏHİM BƏY HAQVERDİYEVİN HEKAYƏLƏRİNİN TƏRBİYƏVİ ƏHƏMİYYƏTİ

**MİRANƏ HƏMİDLİ**
Odlar Yurdu Universiteti
Filologiya və humanitar fənlər kafedrasının
II kurs magistr tələbəsi
hemidlimirane21@gmail.com
Bakı, Azərbaycan

**XÜLASƏ**

Ə.Haqverdiyev (1870-1933) XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycan ədəbiyyatının ən istedadlı yazıçılarından biridir. Ədibin yaradıcılığı XX əsr Azərbaycan ədəbiyyatında tənqidi realizmin ən gözəl nümunələrindəndir. İstər nəsr yaradıcılığında, istər dramaturji fəaliyyətində istedadlı sənətkar hər zaman xalqının maariflənməsi yolunda durmadan çalışmışdır. Görkəmli yazıçı "Molla Nəsrəddin" ədəbi məktəbinin ən istedadlı simalarından sayılır. XX əsrin əsrin əvvəllərində ədəbiyyatın mövzusu, üslubu, ideyası bir tərəfdən ziddiyyətli, eyni zamanda da rəngarəng idi. Yuxarıda da qeyd etdiyimiz kimi, bu dövrdə ədəbi proses iki istiqamətə inkişaf edirdi. Birincilər – "Molla Nəsrəddinçilər" həyatın reallıqlarını təsvir edərək, xalqı cəhalət və qəflət yuxusundan oyatmağa çalışır, ikincilər – "Füyuzatçılar" isə həyatı olduğu kimi yox, xəyallarda olduğu kimi, görmək istədikləri, təsəvvür etdikləri kimi təsvir edirdilər. Ə.Haqverdiyevin bütün yaradıcılığı xalqının maariflənməsinə, dünyagörüşünün artmasına, bədii-estetik və mədəni zövqünün formalaşmasına xidmət edirdi. Hətta ədib xalq yaradıcılığı ilə o dərəcədə əlaqədə olmuşdur ki, yarandığı ilk dövrdə öz fəaliyyəti ilə "Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti" üçün də xeyli faydalı işlər görmüşdür. Ə.Haqverdiyev hər şeydən öncə öz xalqı üçün ədalətli cəmiyyət arzulayırdı və öz əsərləri ilə də bu ideal uğrunda mübarizə aparırdı. Xalqına bağlı olması Ə.Haqverdiyevin yaradıcılığını səciyyələndirən əsas cəhətlərdəndir. Bu mənada Ə.Haqverdiyevin yaradıcılığı və şəxsiyyəti ictimai-estetik fikir tariximizin əvəzsiz mənbələrindən və şəxsiyyətlərindən biri kimi qiymətli qalacaqdır. Məqalədə Ə.Haqverdiyevin hekayələrində aşılanan tərbiyəvi fikirlər haqqında araşdırma aparılmışdır. Bu heklayələrə nəzər saldıqda bir daha aydın olur ki istedadlı yazıçı xalqın hikmət xəzinəsinə hər zaman bağlı olmuşdur və öz əsərlərində tərbiyəvi fikirlər aşılamaqda bu sonsiz hikmət xəzinəsindən səmərəli şəkildə bəhrələnmişdir.

**Açar sözlər:** Ə.Haqverdiyev, hekayə, tərbiyə

## EDUCATİONAL SİGNİFİCANCE OF A.HAGVERDİYEV'S STORİES

**ABSTRACT**

A. Hagverdiyev (1870-1933) is one of the most talented writers of Azerbaijani literature at the end of the 19th century and the beginning of the 20th century. The author's work is one of the best examples of critical realism in the 20th century Azerbaijani literature. A talented artist, whether in prose creation or dramaturgical activity, has always worked tirelessly for the enlightenment of his people. The outstanding writer is considered one of the most talented figures of "Molla Nasreddin" literary school. At the beginning of the 20th century, the theme, style, and idea of literature were contradictory and colorful at the same time. As we mentioned above, the literary process was developing in two directions during this period. The first - "Molla Nasreddinchilar" described the realities of life and tried to wake up the people from the sleep of ignorance and heedlessness, while the second - "Fyuuzatchilar" described life not as it is, but as it is in dreams, as they want to see and imagine. All of A.Hagverdiyev's creativity served to educate his people, increase their outlook, and shape their artistic, aesthetic and cultural taste. He was even connected with literary folk creativity to such an extent that he did a lot of useful work for the "Azerbaijani Research and Education Society" with his activities in the first period of its creation. Above all, A. Hagverdiyev wished for a fair society for his people and fought for this ideal with his works. Being connected to his people is one of the main aspects that characterizes A. Hagverdiyev's creativity. In this sense, A. Hagverdiyev's creativity and personality will remain valuable as one of the irreplaceable sources and personalities of our social-aesthetic thought history. In the article, a study was conducted about educational ideas instilled in the

stories of A. Hagverdiyev. Looking at these stories, it becomes clear once again that the talented writer has always been connected to the wealth of wisdom of the people and effectively benefited from this infinite wealth of wisdom in instilling educational ideas in his works.

**Key words:** A.Hagverdiyev, story, upbringing

## GİRİŞ

Ə.Haqverdiyev (1870-1933) XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycan ədəbiyyatının ən istedadlı yazıçılarından biridir. Ədibin yaradıcılığı XX əsr Azərbaycan ədəbiyyatında tənqidi realizmin ən gözəl nümunələrindən sayılır. İstər nəsr yaradıcılığında, istər dramaturji fəaliyyətində istedadlı sənətkar hər zaman xalqının maariflənməsi yolunda durmadan çalışmışdır. Görkəmli yazıçı həm də "Molla Nəsrəddin" ədəbi məktəbinin ən istedadlı simalarından sayılır. Bu ədəbi məktəbin nümayəndələrinin əsas cəhəti cəmiyyətdə rast gəldikləri problemlərin həllində tənqid üsuluna üstünlük vermələri idi. Ə.Haqverdiyevin yaradıcılığına nəzər saldıqda da bunu aydın görə bilərik. Lakin ədibin hekayələrində kəskin tənqidlə yanaşı, eyni zamanda həm də tərbiyəvi cəhətlərin də aşılandığını müşahidə edirik. Bu mənada ədibin bir çox hekayələrindən çıxan nəticə xalqımızın hikmət xəzinəsi hesab olunan atalar sözləri və məsəllərimizin poetik yozumu təsiri bağışlayır. Ədibin bir çox hekayələrinin sonluğu əxlaqi-didaktik sonluqla tamamlanır. Bu zaman istedadlı sənətkar ya atalar sözlərindən birbaşa istifadə edir, ya da atalar sözünün adını çəkmədən onun ifadə etdiyi məzmun hekayənin ümumi ruhuna hopur. Bir çox tədqiqatçılar da Ə.Haqverdiyevə həsr olunmuş monoqrafiya və araşdırmalarında onun yaradıcılığını bir sıra aspektlərdən təhlil etmişlər. Bu məqalədə xalqın hikmət xəzinəsi olan atalar sözləri və məsəllərin görkəmli yazıçının hekayələrində işlənmə dərəcəsi tədqiq olunmuşdur.

## TƏDQİQAT METODU

Məqalənin məzmununda müqayisəli metoddan istifadə edilmişdir. Məqalədə Ə.Haqverdiyevin hekayələrinin tənqidi məzmunu və didaktik əhəmiyyəti müqayisəli şəkildə təhlilə cəlb olunur. Tənqidi-realizm ədəbi cərəyanının görkəmli nümayəndəsi olan Ə.Haqverdiyev qələmə aldığı kiçikhəcmli hekayələri ilə əslində böyük mətləbləri açıb göstərir, böyük problemlərin üzərinə qələmi ilə sanki projektor işığı salırdı. Cəmiyyətin bir çox sferalarında mövcud olan problemləri yazıçı ustalığı ilə öz əsərlərində göstərən ədib eyni zamanda problemləri göstərməklə yanaşı, onlardan çıxış yolunu da təqdim edirdi və bir növ oxucularını həm güldürür, həm də maarifləndirirdi. Bu səbəbdən, yazıçının hekayələrində atalar sözləri və məsəllərin çox işləndiyi müşahidə olunur. Çünki şifahi yaradıcılıqda epik növün janrı olan atalar sözləri xalqın min illik hikmət xəzinəsinin məhsuludur. Bu hekayələr həm tənqid edir, həm də tərbiyələndirir, insanların gözünü açırdı. Ə.Haqverdiyev, doğrudan da, kiçik hekayə janrında çox böyük mətləbləri qoymuş və bunları ustalıqla həll etməyi bacarmışdır.

Xalqın həyatı, məişəti, onun keçdiyi mürəkkəb inkişaf yolu Ə.Haqverdiyevin nəsr yaradıcılığında da yüksək səviyyədə bədii həllini tapmaqdadır. "Xalq həyatı, cəmiyyətin keçdiyi ziddiyyətli yollar bədii yaradıcılığa da təsirsiz ötüşmür. Azərbaycanın tanınmış realist sənətkarı Əbdürrəhim bəy Haqverdiyevin əsərlərini də bu qəbilə aid etmək olar.Qeyd edək ki, ədibin yaradıcılığı ədəbiyyatımızda realizmin daha da dərinləşməsinə, yeni bədii keyfiyyətlərlə zənginləşməsinə əhəmiyyətli dərəcədə təsir göstərmişdir" (Osmanova, 2023). Onun yaradıcılığı ədəbiyyatda realizmin daha da dərinləşməsinə, yeni keyfiyyətlər qazanmasına, inkişaf etməsinə ciddi dərəcədə təsir göstərmişdir. Bu baxımdan ədibin yaradıcılığı olduqca geniş və çoxçeşidlidir. "Görkəmli sənətkarın əsərlərində mənsub olduğu xalqın qədim etnik-mədəni ənənələri ilə görünən və görünməyən bağlar mövcuddur" (Acalov, 1990). Xüsusilə yaradıcılığının ikinci dövründə (1905-1920) görkəmli yazıçı Azərbaycan bədii nəsrinin olduqca maraqlı nümunələrini yaratmışdır. 1906-cı ildə "Həyat" qəzetində çap edilən "Ata və oğul" hekayəsində ədib cəmiyyətdə övlad tərbiyəsinin olduqca vacib məqam olduğunu vurğulayır, valideyn-övlad münasibətlərinin düzgün qurulmasının vacibliyini qeyd edir. Həmin ildə çap olunan "Ayın şahidliyi" hekayəsində isə yuxarıda bəhs etdiyimiz kimi, ədib oxuculara "nahaq qan yerdə qalmaz" ideyasını aşılayaraq insanlara haqsızlıq etməkdən, zülm etməkdən çəkinməyə çağırırdı. Pis heç vaxt cəzasız qalmır. İnsan həm yaxşı əməllərinin, həm də pis əməllərinin qarşılığını mütləq alır. Hekayədə heç kim başqalarına yaşatdığını özü də yaşamadan bu dünyadan köçmür ideyası hakimdir.

1910-cu ildə "Molla Nəsrəddin" jurnalında "Marallarım" başlığı altında ədibin "Mütrib dəftəri", "Şikayət", "Qiraət", "Bomba", "Şəbih" adlı hekayələri çap olunur. Bu hekayələrdə də ədib xalqa zülm

edən, haqsızlıqla məzlumların haqqını əlindən alan yüzbaşılar, qaradovoylar, xalqı din pərdəsi altında müti vəziyyətdə saxlayan, gözünü pərdələyib maariflənməsinə imkan verməyən ikiüzlü, riyakar mollalar, xalqı aldadıb özünə var-dövlət yığmaqla məşğul olan acgöz tacirlər "marallarım" adı altında tənqid atəşinə tutulur. Ədib hekayələrində yeni yaranmaqda olan burjua cəmiyyətinin də nöqsanlarını çəkinmədən ifşa edir. Bu mənada əminliklə deyə bilərik ki, gülüş, istehza, tənqid, kinayə, ironiya Ə.Haqverdiyevin tənqid üsulunda mühüm rola sahibdir.

Ə.Haqverdiyev xalqın folklor ənənəsinə ilə sıx bağlı olduğu üçün hətta bir neçə hekayəsinin süjet xətti də nağıl və lətifələrdən götürülmüşdür. Sənətkar xalqın hikmət xəzinəsindən iki məqsədlə istifadə etmişdir. Birinci halda bu, ciddi məzmunda olur. İkinci halda tənqidi gülüşlə müşayiət edilir (Mütəllimov, 1988). Yazıçı onların hər birini bədii yaradıcılıq süzgəcindən keçirərək orijinallıq qazandırmağı bacarmışdır. Yazıçı satirik məzmunlu atalar sözlərini daha çox satirik obrazların dilində işlədir. Əslində yazıçı bu cür atalar sözülərini daha çox kinayəli şəkildə işlədir (Qocayeva, 1994). Ədibin "Pir", "Şəbih", "Dəccalabad" kimi hekayələri buna misal ola bilər. Bu hekayələr folklor ənənəsinə uyğun olan ənənəvi başlıqlarla başlasa da, orijinal süjet və kompozisiya quruluşuna malikdirlər. Bu hekayələrin əksəriyyətində yuxarıda da qeyd etdiyimiz kimi, folklor ruhu, folklor düşüncəsi hakimdir. Ədib "Ayın şahidliyi" hekayəsində Ayın üzündəki qara ləkələrin səsbini "millətin geri qalmasından, avamlığından duyduğu xəcalətin ucbatından" kimi simvolik məna verir. Müəllifin "Ata və oğul" hekayəsində qaldırdığı digər vacib məsələ isə "dostunu göstər, sənə kim olduğunu deyim" atalar sözünün bədii şərhi məsələsidir. Hekayədə Əkbərin dostu Rüstəm onu yoldan çıxarır və Əkbər sonda bütün var-dövlətini itirərək səfil vəziyyətinə düşür. Hekayədən çıxan əxlaqi dərs budur ki, yoldaşını da, dostunu da seçərkən ehtiyatlı olmalı, aldanmamalıdır. Asan yolla əldə olunan qazanc tez də əldən çıxır. İnsan gərək halalına haram qatmasın.Əkbər də məhz yalanın və tamahın qurbanına çevrilir.

Ədibin "Koroğlu" hekayəsi də "Koroğlu" dastanının təsiri ilə yazılıb. Hekayənin qəhrəmanı Nəriman Kor İsrafilin oğludur. O, "Dumanlı" kəndinin sakinidir. Nərimanın atasının gözləri kor idi. Nərimanın kiçik qardaşının adı Qəhrəmandır. Nəriman Hacı Bayram adlı varlı bir şəxsə nökərçilik edir. Ona Koroğlu adını da Hacı Bayram qoyur. Nəriman qısa zaman ərzində hər kəsin hörmətini qazanır. Dastan qəhrəmanı Koroğlu kimi o da kimsəsizlərin, köməksizlərin ümid yerinə çevrilir. Nərimanın sevdiyi Güldəstə obrazı da xarakterсə "Koroğlu" dastanındakı Nigar xanıma oxşayır.

"Mirzə Səfər" hekayəsində yazıçı "yorğanına bax, ayağını uzat" və "yaxşılığı at dəryaya, balıq bilməsə də, xalıq bilər" atalar sözlərinin poetik açımını təqdim edir. Mirzə Səfər bütün çətinliklərə baxmayaraq oğlanlarını oxudur ki, gələcəkdə heç kimdən asılı vəziyyətdə qalmasınlar. Atalarının bu fədakarlığı qarşısında qardaşlar da bir-birinə qarşı eyni fədakarlığı nümayiş etdirirlər. Hekayədə diqqət çəkən ikinci obraz Mirzə Səfərin saatsaz dostu usta Zeynaldır. Həsən ağa usta Zeynalın oğlanlarını məktəbdən xaric etdirməyə çalışsa da, Mirzə Səfərin və usta Zeynalın zəhməti və səyi nəticəsində oğlanları təhsillərini başa vururlar. Usta Zeynal özü saatsaz olsa da, heç bir təmənna güdmədən, qarşılıq ummadan Mirzə Səfərin oğlanlarının oxuyub təhsil almalarına kömək edir.

"Qəndil" hekayəsində zalım, zülmkar İskəndər bəyin simasında yazıçı qaniçən,quldurluq, haqsızlıq edən insanların ümumiləşmiş obrazını yaradır. Və "hər gecənin bir səhəri olur" ideyasını tərənnüm edir. İskəndərin də zülmü ən sonda qanlı çanağa dönüb öz başında çatlayır. Yalçın qayalıqlarda özünə məksən salan İskəndər bəy bütün kənd camaatınl qorxu içində saxlamaqla hər yerdə haqsızlıq, ədalətsizlik edirdi. Camaat onun izni olmadan öz övladlarına toy belə edə bilimirdi. Yeni yaranan hökümət isə İskəndər bəyin bu imtiyazlarını əlindən alaraq özünü də qovur. Hökumət İskəndər bəyin mülkündə olan əşyaları kənd camaatı arasında bölməyə qərar verir. Cavan bir qadın yaxına gələrək tavanda asılan 5 qəndilli çırağı istəyir: Birdən qadın, sifəti qan кimi qızarmış, gözlərindən alov saçaraq, üzünü camaata tutub dedi:

– Camaat! Bir il bundan qabaq mənim atam, İsкəndər bəyə bir inək peşкəş gətirib məni ərə verməyə izin istədi. İsкəndər bəy qulaq asıb dedi:

– Mən eşitmişəm sənin qızın çox gözəldir. Mən necə izin verim кi, armudun yaxşısını ayı yesin? Elə gözəl qızı çirкli bir кəndli aparsın? Bu inək mənə lazım deyil; götürüb apararsan evinə. Bu gecə gərək qızını mənə qonaq göndərəsən; ondan sonra hər кəsə istəsən verə bilərsən. Atam yalvardı, yaxardı, ağladı, ayaqlarına süründü. Qulaq verməyib döyüb qovdu. Yazıq кişi məyus evə gəldi. İstədi məni götürüb uzaq кəndlərin birinə qaçırtsın, bəyin atlıları qapını кəsdirib atama imкan verмədilər. Gecə neçə nəfər gəlib atamın, anamın əl və ayaqlarını bağlayıb, yerə yıxıb, məni apardılar. Bəy məni

həmin bu otağa çəkib yırtıcı canavar tək qucaqlayıb, çarpayının üstünə yıxdı. Mən nə qədər yalvardım, ağladım, əziz ölənlərinin goruna and verdim, heç zad ona əsər eləmədi. Bu qəndilin çıraqlarının beşi də yanıb evi gün kimi eləmişdi. Mən, gördükdə ki, bu canavarın əlindən qurtara bilməyəcəyəm, yalvarıb dedim: "İndi ki məni əldən qoymaq istəmirsən, barı mənim bircə təvəqqemi qəbul elə; bu çıraqları söndür". Dedi olmaz, mən gərək bu çıraqların işığında səninlə istirahət eləyim... İndi bəy qaçıbdır, mənim ona əlim çatmır, qısasımı bu qəndildən alacağam. Belə deyib, qadın yügürək balkona çıxıb oradan qəndili dərənin təkinə buraxdı və dedi:

– Arzuma çatdım. Bu evdən mənə başqa şey lazım deyil, istəmirəm buradan apardığım şey gözümün qabağında durub, o murdar gecəni hər dəqiqədə mənim xəyalıma gətirsin. Sağ olun, yoldaşlar! Qadın oradan çıxıb qəhrəmantək evinə getdi".

Ədibin müharibədən sonra övladını itirən valideynlərin çəkdiyi iztirabı göstərən bir hekayəsi də "Oğulla görüş" əsəridir. Yaşlı Çordon oğlu Sultanın cəbhədə öldüyünü heç cürə qəbul edə bilmir. Daim onun xəyalı ilə yaşayır. Oğlu cəbhəyə könüllü yollanmışdı və daha yaşı çatmırdı. Buna baxmayaraq, ata onu dayandırmamışdı. İllər uzunu bunun vicdan əzabını yaşayan ata bir gün oğlunun olduğu yerlərə doğru yola çıxır. Və burada oğlunun xəyalı ilə bir daha üzləşir.

"Əsgər oğlu" əsərində müəllif atasını müharibədə itirən və onu heç görməyən bir uşağın hekayəsini danışır. Ceengül ərini müharibədə itirdikdən sonra beş yaşlı oğlu Avalbek ilə birgə yaşayır. Poçtda yardımçı işləyərək övladına baxan ana bir gün kənddə göstərilən filmə oğlu Avalbeki də aparır. Müəllif burada uşaq düşüncəsi ilə müharibəni bizə göstərir. Anası filmdəki bir aktyoru ona göstərərək atası olduğunu söyləyir. Və beləliklə, həmin aktyor Avalbekin gözündə mükəmməlliyə bürünür. Filmin sonunda aktyor ölür və Avalbek hər kəsə onun atası olduğunu söyləyir. Onun sadəcə bir aktyor olduğunu desələr də, uşaq bunu qəbul etmir və Avalbekin atası onun qəlbində yaşayır. Beləcə uşaq ilk dəfə birini itirməyin acısını orada yaşayır. (Sandallık, 2019)

**NƏTICƏ**

Türk dünyasının ən böyük simalarından olan Çingiz Aytmatovun əsərlərində müharibə mövzusu özünü müxtəlif istiqamətlərdə göstərir. Bunları müharibədə yetim uşaqlar, yalnız qalmış qadınlar, səfalət çəkən xalq, məhv olan ailə və.s kimi müxtəlif pəncərələrdən görmək mümkündür. Lakin önəmli bir faktı qeyd etmək lazımdır ki, savaş mövzusu onun əsərlərində döyüş səhnələri ilə deyil, arxa cəbhənin həyatı ilə müşahidə olunur. II Dünya müharibəsinin başlanğıcında on üç yaşlı yeniyetmə olan Çingiz Aytmatov əsərlərində şahidi olduğu, müşahidə etdiyi gerçəklikləri əks etdirmişdir. Bununla da, müharibə mövzusunun qaynağı elə onun uşaqlığından gəlir. Çingiz Aytmatov fərqi bir də onda özünü göstərir ki, o əsərlərində tənqid edilmək bahasına olsa belə, həqiqəti göstərdi. O, ədəbiyyata fərari obrazını gətirərək bu günədək göstərilməyən müharibə həqiqətlərini ortaya çıxardı. Doğrudur, ön cəbhədə əsgərlər vuruşur, arxa cəbhədə xalq zəfər üçün əlindən gələni edirdi. Lakin hər yerdə olduğu kimi, pis xislətli, yalnız özünü düşünən, mənəvi dəyərlərdən yoxsul insanlar var idi. Çingiz Aytmatov digər qələm yoldaşlarından fərqli olaraq, məhz onları ədəbiyyata gətirdi və oxucuya təqdim etdi.

Çingiz Aytmatov təkcə müharibə dövründə deyil, ondan sonrakı dövrdə də davam edən çətinlikləri qələmə almış, yeri gəldikcə Sovet hökumətinin mövcud vəziyyət qarşısında acizliyini göstərmişdir. Bütün bunların önündə isə, "Ana tarla" əsərində dediyi kimi dünyaya çatdırmaq istədiyi bir mesaj durur: İnsanlar müharibəsiz yaşaya bilərmi? Bəli, bu biz insanların iradəsindən, zəkasından asılıdır.

**ƏDƏBIYYAT SIYAHISI**

1. Aytmatov, Ç. (2016). Üz-üzə. Bakı: Elm və təhsil.
2. Aytmatov, Ç. (2016). Seçilmiş əsərləri. II cild. Bakı: Öndər nəşriyyat.
3. Çakmakçı, S. (2001). Cengiz Aytmatov'un Hikayelerinin Tematik Bakımdan İncelenmesi.
4. Sandallık, H. (2019). Cengiz Dağcı ile Cengiz Aytmatov'da II. Dünya Savaşı ve Yansımaları: Karşılaştırmalı Bir Çalışma.
5. Nemutlu, Ö. (1997). Cengiz Aytmatovun Eserleri Üzerine Bir İnceleme.

# AZƏRBAYCANIN MÜHACİRƏT ƏDƏBİYYATINDA ÜMMÜLBANUNUN (BANİN) MÖVQEYİ

**İSAQLI DÜNYA**
OYU
HUMANİTAR VƏ DİLLƏR FAKÜLTƏSİ
FİLOLOGİYA İXTİSASI
4-CÜ KURS
ELMİ RƏHBƏR : **FİL.F.D.DOS NURİDƏ MUXTARZADƏ**
dunyaisaqli0@gmail.com
AZƏRBAYCAN, BAKI

**XÜLASƏ**

Tezisdə rəngbərəng, zəngin ideyalarla dolu Azərbaycan ədəbiyyatının tarixində mühacirət bədii ədəbiyyatı nümayəndələri haqqında qısa məlumat verilmişdir. Nümayəndələrdən Üzeyir Hacıbəylinin, Ceyhun Hacıbəylinin, Əli bəy Hüseynzadənin, Əhməd bəy Ağa oğlunun, Məmməd Əmin Rəsulzadənin, Almas İldırımın, Ümmülbanu Baninin adı çəkilmişdir. Onların əsərlərinin mövzusuna, ideyasına toxunulmuşdur. Mühacirət bədii ədəbiyyatının ümumiyyətlə nə olduğu barədə ətraflı məlumat verilmişdir. Hansı səbəblərdən qələm sahiblərinin Vətəni tərk edərək kənarda həsrətlə yaşayıb ədəbiyyat yaratmaları (məcburi və ya könüllü, dini və ya iqtisadi) haqqında məlumat verilmişdir. Ümmülbanu Baninin mühacirət bədii ədəbiyyatındakı rolu geniş araşdırılmışdır. Onun asi, çılğın, qayda - qanuna sığmayan, yaşadığı dövrlə barışmayan, bir o qədər də rəngarəng keçən həyatı haqqında, eyni zamanda uşaqlıqdan keçirdiyi ağır günlər - balaca olarkən anasını itirməsi, alman dayənin himayəsində böyüməsi, atasının işi ilə bağlı onlara vaxt ayıra bilməməsindən doğan ata sevgisinin yaratdığı boşluq, daha sonra evlənib ögey ananın gəlməsi, həyatının bir anda dəyişməsi haqqında məlumat verilmişdir. Əsərlərinin məzmunu haqqında, Vətəninə, xalqına, ailəsinə olan rəftarı, dırnaq arası bağlılığı nəzərə çatdırılmışdır. O özünü bura aid hiss etmirdi və bunu əsərlərində əks etdirirdi, yaşadığı yeri "mundar" adlandırırdı. Uşaqlıqdan qaçıb getməyi, xarici ölkələrdə yaşamağı xəyal edir və buna nail olur. Buna görə də onun əsərlərində Vətən həsrəti bir o qədər yoxdur. Sadəcə anası ilə olan günlər üçün darıxır. Bütün bunları nəzərə alaraq onun mühacirət bədii ədəbiyyatı nümayəndəsi olması ilə bağlı mübahisələr yaranmışdır və bu tezisdə öz əksini tapmışdır. Tezisi hazırlayarkən yazılı və elektron mənbələrdən istifadə olunmuşdur.

**AÇAR SÖZLƏR: Mühacirət bədii ədəbiyyati, vətən həsrəti, ümmülbanu banin, mühacirət,**

## GİRİŞ

Çox şaxəli ictimai inkişaf yolu keçmiş, rəngarəng, üslubca, ideyalarla zəngin olan Azərbaycan ədəbiyyatının tarixində mühacirət bədii ədəbiyyat nümunələri əhəmiyyətli yer tutur [4]. Azərbaycan mühacirət ədəbiyyatı Azərbaycanın daxilində yaranan ədəbiyyat qədər qədim və zəngindir. Orta əsrlərdən bəri Azərbaycanın görkəmli qələm sahibləri İmadəddin Nəsimi və Xətib Təbrizi Vətəndən kənarda yaşayıb - yaratmışlar. Nəsiminin “Ayrılıqdan yar mənim bağrımı büryan eylədi” qəzəlinə nəzər salaq:

Eşidərsə daş ərir həsrətdə ahü zarımı,
Ol güləndam yarı gör, könlümü zindan eylədi.

Misralarda dərin həsrət motivləri vardır, yardan ayrı bağrının qan, könlünün zindan olduğunu söyləyir. Nəsimi əslində əsərlərində Yar deyərkən Allahı və Vətəni nəzərdə tuturdu. Misraların mənasını izah etdikdə asanlıqla deyə bilərik ki, Vətəndən, eyni zamanda yardan uzaqda günlərinin ağır keçdiyini söyləyir: Daş eşitsəydi əyər həsrətdən ah, zar çəkdiyimi, əriyərdi. O yar, könlümü zindan eylədi. Mənim ahımı eşitmədi.

XX - XXI əsrlərdə də Azərbaycanın bir sıra qələm sahibləri müxtəlif səbəblərdən Vətəndən kənarda yaşayıb, lakin Azərbaycan ədəbiyyatını inkişaf etdirirdilər [ 7]. Hökumət təzyiqlərindən, hədə - qorxulardan, dini və ya iqtisadi səbəblərdən Vətəndən uzaqlarda həsrət yağında qovrulmuş, bu hislərini qələmə, kağıza tökmüşlər.

Əmin Abid Gültəkinin şeirinə nəzər salsaq görərik ki, gələcəyə inam, istiqlal uğrunda mübarizənin qələbə çalması, Anaya həsrət, Vətənə həsrət bağlılıq öz əksini tapıb.

Yenə nələr düşündün ki, doldu gözlərin?
Rahatsızmı yoxsa sənin də yerin?
Yoxsa oğlunumu sən xatırladın
Yox... onu düşünmə, indi övladın
Buzlu üfuqlərin qucağındadır;
Əmdikcə soyuğu "daha ver" deyir.
Qəlbindəki alov, bax, nələr deyir.
Sil göz yaşlarını, dur, bəklə onu
Her donduran qışın bahardır sonu.

Bir sıra islahatlarla əlaqədar hökumət Azərbaycanın azad fikirli övladlarının fəaliyyətinə güclü nəzarət edirdi. Bu səbəbdən də bir çox qələm sahibləri Azərbaycanı tərk etməyə məcbur oldu. Nümayəndələr sırasında Əli bəy Hüseynzadə, Əhməd bəy Ağa oğlu, Məmməd Əmin Rəsulzadə, Yusif Vəzir Çəmənzəminli, Almas İldırım, Mixaylo, Ümmülbanu Banin və başqalarının adını çəkmək olar [ 7].

Bəs mühacirət nədir? Mühacirət iqtisadi və ya dini səbəbdən məcburi və ya könüllü olaraq öz vətənini tərk edib başqa ölkəyə köçməkdir. Mühacirət etmək öz vətənini tərk edərək başqa ölkədə yaşamağa məcbur olmaqdır [ 8]. Zaman - zaman mühacirət ədəbiyyatı yad, özgə sayılsa da, tarix vahid mənəviyyatın tərkib hissəsi kimi ona bəraət verir və gec tez mühacirət ədəbiyyatı vahid ədəbiyyatın tərkib hissəsi kimi öz haqqını alır. Azərbaycan milli azadlıq hərəkatı mühacirət ədəbiyyatına yeni baxış, yeni mənəvi dəyərlər yaratdı. Sovet rejimi ilə bağlı olaraq reallaşan mühacirətin ayrı- ayrı nümayəndələrinin irsinin ortaya çıxarılması, yeni ictimai - siyasi kontekstdə araşdırılıb öyrənilməsi günün vacib tələbi kimi meydana çıxdı [3, səh 3]

Qələm sahiblərimiz də, müxtəlif səbəblərdən başqa ölkələrə köçmüş, orada Vətən həsrətilə yaşamış, özləmlərini vərəqlərə köçürmüşdür. Məsələn, Almas İldırımın yazdığı "Əsir Azərbaycanım" şerində bu həsrəti duymamaq mümkün deyil:

Hanı məni gül qoynunda doğuran
Xəmirimi göz yaşıyla yoğuran
Beşiyimdə, « layla, balam » çağıran
Azərbaycan, mənim baxtsız anam oy
Neçə ildir həsrətinlə yanam oy…

Şerdə biz Vətən həsrətini, nisgilini, ondan uzaqda qəm dəryasına batmış bir şairi görürük. Eyni zamanda Üzeyir Hacıbəylinin, Ceyhun Hacıbəylinin, Hüseyn Bayqara, Əhməd Cəfəroğlunun da yaradıcılığında həmin motivləri görmək mümkündür. Lakin mühacirət bədii ədəbiyyatı nümayəndələrindən biri fərqlənir. Söhbət Ümmülbanu Banindən gedir. Ümmülbanu Baninin yaradıcılığı digər mühacirət nümayəndələrindən mövzu və ideyasına görə tamamilə fərqlidir. Əksinədir. O, 1905-ci ildə Bakıda anadan olmuşdur. Məşhur Azərbaycan milyonçuları Şəmsi Əsədullayev və Musa Nağıyevin nəvəsidir. "Bəzi adamlar kasıblıqlarına baxmayaraq, nəcib ailələrdə doğulurlar. Mənim dünyaya gəldiyim ev isə çox varlı olsa da, "yaxşı" nəsildən deyildi." Bu cümlələr Baninin məşhur "Qafqaz günləri" əsərindəndir. Cümlələrin mənası əsər boyu oxucuya çatır. Baninin ailəsi sonradan varlanmışdı, amma var-dövlət onlara lüks həyatı təmin etsə də nəcibliyi öyrədə bilməmişdi. Nənəsinin, bibilərinin, onların həyat yoldaşlarının tez-tez nalayiq söyüşlər söyməsi, vərəsəlik uğrunda didişmələri, bir-birlərini təhqir etmələri bunu bir daha təsdiqləyir [9]

Uşaq yaşda anasını itirmiş, alman dayənin himayəsində böyümüşdür. O nənəsi, bibilərindən daha çox alman dayəsini sevirdi. Onun haqda yazırdı "Anna F. Şux qamətli, incə zərif bir xanım idi. Azərbaycan xanımlarından nəcibliyi ilə seçilərdi. Onun şux qaməti, gözəl gözləri, incə beli, incə əlləri var idi. Yeməyi elə aramla, elə səliqəli yeriyərdi ki adam baxmaqdan doymazdı. Elə astaca gəzərdi ki, sanki su üzərində qu tükü üzüb hərəkət edir. Nənəmgil isə tam əksinə idi. Yeməyi əllə acgözlülüklə yeyərdi. Bibilərim də həmçinin, bir masa ətrafında əyləşəndə Anna heyrətdən və əsəbdən qıpqırmızı olar, lakin səsini çıxara bilməzdi. Bizə (mənə və bacılarıma) xarici qadınlar kimi zərif olmağı öyrədərdi. Amma biz hər nə qədər öyrənməyə çalışsaq da damarlarımızdan Şərqli qanı axrdı. Biz də nənəmiz kimi əllə yemək yeməyi daha çox sevərdik, lakin Annaya olan məhəbbətimiz onun sözündən çıxmamağa vadar edirdi".

1920-ci ildə hakimiyyət bolşeviklərin əlinə keçdikdən sonra doğma vətənini tərk etmiş və Fransaya mühacirət etmişdi. Burada 15 yaşlı qız müstəqil həyata atılmış, satıcı, maneken, katibə, tərcüməçi işləmiş və nəhayət yazıçı kimi məşhurlaşmışdır [ 6]. O, Fransada əsasən rus mühacirləri qrupuna - Bunin, Tolstoy, Şalyapin, Teffi və s. daxil olmuş, "Qafqaz günləri", "Paris günləri", "Bizimlə", "Ernst Yungerin portreti", "Mən opiumu seçdim" və s. məşhur əsərlərini yazmışdır. Parisdə bir neçə peşədə özünü sınayan Banin tədricən ədəbi dairələrlə əlaqə qurmuş və xüsusilə rus mühacir yazıçıları ilə dostlaşmışdır. Onun tanışları sırasında filosoflar, şairlər, yazıçılar, tərcüməçilər və s. yaradıcı insanlar var idi [ 2, səh 3]. "Qafqaz günləri" romanında XX əsrin əvvəllərinə aid olan Azərbaycan tarixi təqdim olunur, o zamankı adət-ənənələr, həyat tərzi, mədəniyyət haqqında ətraflı məlumat verilir. Fransız dilində yazılmış roman avtobioqrafik faktlar üzərində qurulmuşdur. Romanda dövrün siyasi hadisələrini təsvir edən Ümmülbanu yazır: "Bakı göz qabağında dəyişir, Avropa dəbinə keçirdi. Qarışıq tarixi hadisələr baş verdiyi bu dövrdə adətlər dəyişir, onsuz da zəifləmiş din və ənənələr mövqeyini daha da itirirdi". Həmçinin, dövrün siyasi sərtliyi haqqında yazırdı ki, dəniz həmişəki maviliyi ilə göz oxşayır, torpaq da həmişəki kimi boy verirdi: "Təbiətin bu dəyişməzliyi ilə bizim dəyişmiş güzəranımız arasındakı ziddiyyət mənə melanxolik bir ovqat gətirmişdi". Ümmülbanu "Qafqaz günləri" romanında Azərbaycan həyatı ilə Fransa həyatını qarşılaşdıraraq, oxuculara Azərbaycan haqqında məlumatları vizual olaraq çatdırmağa çalışır [10]. O, həm də rus, ingilis, alman dillərindən çevirilər etmiş və tərcüməçi kimi məşhur olmuşdur.

Banin hər hansı bir hökumət təzyiqindən, təhdidindən, qorxudan və sairədən mühacirət etməmişdi. 15 yaşı olduqda müharibə vaxdı getmiş, daha sonra geri qayıtmışdır. Yaşa dolduqdan sonra isə o, öz istəyi ilə orada yaşamağı seçmişdir, xaricdə yaşamaq arzusu onu üstələmişdi. Öz arzu - istəklərinin, uşaqlıqdan xəyalını qurduğu həyatın, yaşam tərzinin və sevgisinin ardınca qaçıb getmişdir. Eyni zamanda o evli idi. Bu romanda Baninin "boynuma almalıyam ki, özümdə heç kimə qohumluq duymamışam. Bilmirəm, bu bəşəri hissdir, yoxsa, mən təbiətən pis adamam" qəbilindən olan və ailəsini gözdən salan fikirləri çoxdur [5]

O yazırdı ki, qohumları nə vaxt bir yerə toplaşsa hər zaman mübahisə yaranardı. Ya dava düşər, ya da toplaşıb kiminsə arxasından qeybət edərdilər. Hətta bir – birilərinin üzünə gülüb ardınca pis – pis danışardı. Bibi uşaqları ilə oyunlar oynamaq həzz alsa da, əslində Banin onları da sevməzdi. Onları yalançı, həyasız adlandırırdı. Gülnar haqqında yazırdı ki, o yalançı, xəbərçi, həyasız bir qız idi. Pis vərdişləri də vardı, siqaret çəkir, söyüş söyür və s. Lakin buna baxmayaraq deyib gülən birisi idi, bu xüsusiyyəti Baninə xoş gəlirdi, amma yenə də ondan və digər uşaqlardan uzaq durmağa çalışırdı. Buna görə də o, insanlardan qaçıb təbiətlə dostlaşırdı. Ağaclarla, yarpaqlarla danışır, dostlaşır, dərdini bölüşürdü. Hətta bəzən mübahisə də edərdi. Ona görə də o, qohumluluq bağlarından uzaq idi. Banin Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ərəfəsində cərəyan edən hadisələri belə təsvir edir: "Azərbaycanın paytaxtı Bakı şəhərində də siyasi canlanma gücləndi. ...Sosialist təmayüllü bir erməni təşkilatı ölkəni kommunist dağıntısından qurtarmaq adı altında hərbi diktatura rejimi yaratdı... Onlar hər kim olsalar da, hakimiyyətləri dövründə müdafiə imkanı olmayan müsəlmanları qırmağa başladılar". "Azərbaycanda ermənilər azərbaycanlıları qırırdı" yazan memuarist rus hakimiyyətinin bu vəziyyətə biganəliklə baxdığını və əslində "parçala, hökm sür" siyasətini yeritdiyini diqqətə çatdırır. Banin şahidi olduğu erməni vəhşiliyini təsirli cümlələrlə təsvir edərək dəhşətli mənzərə haqqında tam təsəvvür yaradır: "İşıqlar kəsilmiş, ev və şəhər dərin qaranlığa qərq olmuşdu. Bu qaranlığı haradan atıldığı məlum olmayan, vıyıldayan güllələr dəlib keçirdi. Uzaqdan pulemyot atəşləri də eşidilirdi. Biz hər dəqiqə daşnaqların evə dolacağını, mənzilimizi dağıdıb bizi də qıracaqlarını gözləyirdik. Telefon da kəsilmişdi, evimizin ətrafı təhlükə ilə dolu bir adaya bənzəyirdi". Banin səhərin açılması ilə qonşuluqda gizləndikləri evin pəncərəsindən erməni talanlarının şahidi olur, öz evlərinin də ermənilər tərəfindən qarət edildiyini, evin bütün əşyalarının - çəngəl-qaşıqların, xalça-palazların, şamdanların, pal-paltarların yük maşınına yığıldığını seyr edir... Və onlar vətəni tərk edir [11].

Baninin əlində rəsmi mühacir arayışı da vardır, ancaq N.Cabbarlı onun arayışını qəbul etməyərək mühacirət ədəbiyyatına aid etmir [ 6] . Hətta onu mühacirət ədəbiyyatına aid edən professor V.Sultanlıya, Nailə Səmədovaya öz etirazını bildirir. Onun fikrincə, Baninin "yaradıcılığı, ümumiyyətlə Azərbaycan ədəbiyyatının hadisəsi, milli ruhumuzun ifadəsi deyil". Belə çıxır ki, yazarların əsərlərində milli ruh olmadığı, yaxud doğulduğu torpaq, vətən haqqında xoşagəlməz ifadələr işlətdiyi üçün onları mühacirət ədəbiyyatı saymaq olmaz. Banin əsərlərində öz xalqının adət - ənənələrini, insanlarını alçaldar, özünü onlardan uzaq tutar, fransız, alman qadınlarına - kişilərinə,

mədəniyyətinə üstünlük verərdi. Tərifləyərdi. Onun yazdıqlarına nəzər salsaq görərik ki, öz xalqını, hətta yaxın qohumlarını yalançı, ikiüz, tərbiyəsiz, həyasız, avam kimi qələmə verir, fransız, alman, ingilis və s. millətini romantik, mülayim təbiətli, xoş xasiyyətli, incə, gülərüz olaraq qələmə alırdı. O özünü Azərbaycana aid hiss etmir, hər zaman xarici ölkələrə getməyi düşünür, öz Vətəninə bağlılığı olmadığını dilə gətirirdi. Nəyinki Vətəninə, ailəsinə belə bağlılığı olmadığını yazırdı. Və sonda onun çıxıb getməsi bunu doğrulayır. Baninin belə böyüməsində alman dayənin təsiri böyükdür. O iki mədəniyyət arasında qalmışdı. Xaricə can atırdı, hər kəsi geridə qoyub orada yaşamağı seçdi. lakin bunun doğru və ya yanlış bir seçim olduğunu bilmirdi. Təəssüf ki, bütün ailə bağları qırıldığı üçü artıq özünü bura aid hiss etmir, xoşbəxt olmaq üçün hər şeyi tərk edib öz maraqlarının ardınca gedir.

Biz Baninin çoxplanlı və maraqlı "Qafqaz günləri" memuarında toxunduğu bir mövzudan - yazıçının taleyində erməni vəhşiliyindən bəhs etdik. Əsər bir çox cəhətləri ilə, eləcə də mənfur qonşularımızın ötən əsrin əvvəllərindən başlayaraq xalqımıza qarşı törətdiyi cinayətləri ifşa etmək baxımından da aktualdır. Onun bu memuarının, bütünlüklə irsinin, o cümlədən, publisistikasının, məşhur məktublarının dərindən və hərtəfəfli araşdırılması ədəbiyyatşünaslığımızın qarşısında duran vəzifələrdəndir.

Banin mühacirət ədəbiyyatı nümayəndəsindən daha çox memuar ədəbiyyatı nümayəndəsi hesab etmək doğru olardı. Əsərlərinin əsas bir hissəsini xatirələrindən bəhs edən kitabları tuturdu. Üstəlik gənc nəsilə stimul, ümid nümunəsi olaraq da göstərilə bilər. O nə olur olsun qarşısına məqsəd qoydu və ona çatdı. Xəyallarında yaşatdığı Parisə və sevdiyi adama qovuşdu. Çox böyük fədakarlıq etdi, ailəsini, yurdunu, müharibədən sonra əllərində qalan var dövlətini göz ardı edərək öz xəyallarını seçdi.

Banin "murdar şəhər" dediyi Bakını deyil, Parisi seçdi. Fəqət, qürbət ona arzuladıqlarından heç birini - nə şöhrət, nə sərvət, nə də xoşbəxtlik bəxş etmədi. Vətəndə vəfat etsəydi, ən azından İslam adət-ənənəsinə uyğun dəfn ediləcək və məzarı olacaqdı. Bunların heç biri də ona nəsib olmadı. Bütün bunları Banin özü istədi. Amma yenə də ona Vətəni sahib çıxdı [5].

**TƏDQİQAT METODU**

Tədqiqat işinin aparılmasında şairlərin və yazıçıların Ümmülbanu Banin haqqında dediyi fikirlərə istinad edərək təhlil və təsvir metodundan istifadə edilmişdir

**NƏTİCƏ**

Nəticə etibarilə deyə bilərik ki, Ümmülbanu Banin güclü xarakterli bir qadın olmuşdur. Çünki o həmin dövrdəki qanunlara, qatı dindar ailəsinə, nənə - atasına baxmayaraq bunlarla hesablaşmaq istəmir, hər zaman baş qaldırıb onu salmağa çalışdıqları çərçivəni qırmağa çalışıb və qırmağa da nail olub. Eyni zamanda 15 yaşından həyata atılmış, işləməyə başlamışdı. Xaricdə yaşamağa, ən çox da Parisə meyilli olmuşdur. Və bu Paris eşqi onu ailəsindən, Vətənindən alıb uzaqlara aparmışdır. Baninin mənfi tərəfi ondadır ki, onda bağlılıq hissi yox idi. Boya başa çatdığı, çörəyini yediyi şəhəri “mundar” adlandırırdı. İstər ailəsinə, istər həyat yoldaşına, istər xalqına, Vətəninə bağlı, sadiq deyildi. Hər fürsətdə çıxıb getməyi düşünürdü. Sadəcə özünü düşünür, öz maraqlarının, xəyallarının ardınca getməyi seçirdi. Lakin, Parisin onun həyatına qata bildiyi tək şey ailəsindən uzaq yaşamaq oldu. Nə şan şöhrət, nə də sərvət gətirmədi. Banin təkcə öz xoşbəxtliyini düşünürdü, evli olduğu halda öz eşqinin ardınca getdi, həyat yoldaşı onun qayıtmayacağını bilə - bilə qatarla yola saldı. Və həmin qatar Banini ömrünün sonuna qədər Azərbaycandan ayrı saldı. Ümmülbanu "mühacirətdə" yaşamış olsa da heç vaxt digər mühacirət nümayəndələri qədər Vətən həsrəti çəkməyib, sadəcə uşaqlığı üçün darıxırdı. Paris ona daha maraqlı, daha doğma gəlirdi, amma o bir şeyi yaxşı bilməli idi ki, gəzməyə qərib ölkə, ölməyə Vətən yaxşı.

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT**


1. Bədirxan Əhmədli. Azərbaycan Mühacirət ədəbiyyatı: təşəkkülü, problemləri, şəxsiyyətləri, "Elm və təhsil”, Bakı – 2017
2. Qafqazdan olan və Parisi fəth edən qız. Azərbaycan əsilli fransız yazıçı baninə həsr olunmuş metodik vəsait, Bakı – 2016
3. Vaqif Sultanlı. Azərbaycan mühacirət ədəbiyyatı, Şirvan nəşr, Bakı-1998
4. https://www.azerbaijans.com/content_1716_az.html
5. https://edebiyyatqazeti.az/news/sience/10979-ummulbanu-banin-haqqinda-bilmediklerimiz
6. https://www.anl.az/down/meqale/525/2016/dekabr/521890.htm
7. https://21azer.wordpress.com/2012/05/22/az%c9%99rbaycan-muhacir%c9%99t-%c9%99d%c9%99biyyati/
8. https://www.shagird.info/il/muhaciret/19-29927-1
9. https://kitabsever.wordpress.com/2015/02/12/ummulbanu-banin-qafqaz-gunl%c9%99ri/#comment-7
10. https://www.anl.az/down/meqale/paritet/2012/mart/238277.htm
11. https://525.az/news/202898-baninin-taleyinde-ve-qeleminde-ermeni-vehsiliyi--abid-tahirli-yazir

# HƏQİQİ VƏTƏNDAŞLIQ LİRİKASININ ƏBƏDİYAŞAR ROMANTİKASI VƏ ŞEİRİMİZDƏ SAXTA VƏTƏNPƏRVƏRLİK PROBLEMİ

***Qardaşxan Əzizxanlı,***
*filologiya üzrə fəlsəfə doktoru*
*gardashxan.eziz@gmail.com*
*Xəzər Universiteti*
*BAKI, AZƏRBAYCAN*

**Xülasə**

Bu məqalədə çağdaş Azərbaycan poeziyasının ən ağrılı problemlərindən olan həqiqi vətəndaşlıq lirikası şeirimizdəki süni vətənpərvərliyə qarşı qoyulmuşdur. Göstərilmişdir ki, obrazlı deyim tərzinə malik olduğu təqdirdə vətəndaşlıq lirikası nümunələri ədəbi prosesin tərkib hissəsinə çevrilir. Hansı mövzuda yazılmasından asılı olmayaraq poetik mətnlər çağdaş ədəbi tənqidin obyekti olur, oxucu diqqətini çəkir, yaddaşına hopur, ədəbiyyat tarixinin materialına çevrilir. Ümumi, dəfələrlə deyilmiş sözlərdən ibarət, heç bir poetik çəkisi olmayan vətənpərvərlik şeirləri isə estetik dəyərə malik olmur, yazıldığı andan "ölüm hökmü" verilmiş olur, "oxucu salamı"na layiq görülmür.

Məqalədə hər iki istiqaməti araşdırmaq üçün vətəndaşlıq lirikasının ciddi nümunələri təhlilə cəlb edilir, süni vətənpərvərlik şeirlərindən misallar gətirilir. Həqiqi vətəndaşlıq lirikasının əbədiyaşar xarakterinin sərgilənməsində Məmməd Araz yaradıcılığı ön plana çəkilmişdir. Şairin "Ayağa dur, Azərbaycan!", "Ata millət, ana millət, ağlama", "Azərbaycan – dünyam mənim", "Ya rəbbim, bu dünya sən quran deyil", "İnsan qayalar", "Vətən mənə oğul desə...", "Dünya düzəlmir", "Bu millətə nə verdik ki?", "Məndən ötdü, qardaşıma dəydi", "Babək qılıncı", "Bizi Vətən çağırır" kimi şeirləri buna əyani sübutdur. Yanaşı olaraq şeir adına ədəbi dövriyyəyə buraxılmış süni pafosla aşıb-daşan "şeirlər" müqayisəli şəkildə təhlil olunur. Göstərilir ki, saxta vətənpərvərlik şeirlərində bədii təfəkkür iştirak etmir. Məqalədə misraları tarla şüarlarını xatırladan, şablon qafiyəli, alnına köhnəlik damğası vurulmuş, oxucu zövqünü standart klişelərlə korlayan təmayül tənqid olunur. Qeyd olunan məsələlər məqalədə araşdırılmış, müəyyən elmi nəticə, qənaət əldə edilmişdir.

***Açar sözlər:*** *vətəndaşlıq lirikası, Məmməd Araz, süni vətənpərvərlik şeirləri, surroqat patriotizm, adlı, ünvanlı misralar*

## EVER LIVING ROMANCE OF GENUINE CIVIC LYRICS AND FALSE PATRIOTISM PROBLEM IN OUR POETRY

**Abstract**

Article puts genuine civic lyrics which is one of the painful problems of the modern Azerbaijani poetry versus artificial patriotism in our poetry. Article demonstrates that samples of civic lyrics become part of literary process in case they have figurative manner of expression. Poetic texts become the object of literary critics, draw reader's attention, get absorbed in memory and become the material of literary history regardless of their theme. While patriotic poems comprised of general, repeatedly expressed words, have no poetic weight, has no aesthetic value are "sentenced to capital punishment" since the moment of being written, not worthy of "reader's welcome".

Article engages robust samples of civic lyrics into analysis to research both directions, gives examples of artificial patriotic poems. Mammad Araz's creativity is in the foreground to display ever living character of genuine civic lyrics. Poet's poems such as "Ayağa dur, Azərbaycan!" (Raise up, Azerbaijan!), "Ata millət, ana millət, ağlama" (Fatherland, motherland, do not cry), "Azərbaycan – dünyam mənim" (Azerbaijan - my world), "Ya rəbbim, bu dünya sən quran deyil" (My God, this world is not the one You created), "İnsan qayalar" (Human rocks), "Vətən mənə oğul desə..." (If motherland calls me a son...), "Dünya düzəlmir" (The world does not get better), "Bu millətə nə verdik ki?" (What have we given to this nation?), "Məndən ötdü, qardaşıma dəydi" (It passed me and hit my brother), "Babək qılıncı" (Babak's sword), "Bizi Vətən çağırır" (Motherland call us) are vivid examples to the said. "Poems" full to the brim with artificial pathos which are put into circulation are engaged in comparative analysis in parallel manner. It is demonstrated that there is no artistic thinking in artificial patriotism poems. Article criticizes the trend the lines of which remind field mottos, cut-

and-dried rhymes branded with outdatedness, spoiling reader's taste with standard cliches. Article researched the mentioned issues and came to a certain scientific conclusion.

**Key words:** civic lyrics, Mammad Araz, artificial patriotic poems, surrogate patriotism, named and targeted verses

**Giriş / *Introduction***

XX əsrin ikinci yarısı Azərbaycan poeziyasında vətəndaşlıq lirikasının fəlsəfəsini əsas etibarilə aşağıdakı sosial-mənəvi istiqamətlər təşkil edirdi: a) ana torpağın gözəlliklərinin, doğma yurdun, tarixi keçmişinin, bu gününün tərənnümü ilə bərabər cəmiyyəti narahat edən problemlərin əks etdirilməsi; b) millətin qan yaddaşını oyatmaq, onu özünə qaytarmaq, kimliyini göstərməklə milli özünüdərk duyğularının gücləndirilməsi; c) eyni soykökə malik olan ikiyə bölünmüş bir xalqın ilkin olaraq mənəvi birliyinə nail olmaq və tarixin ədalətsizliyinə qarşı mübarizənin genişləndirilməsi; ç) xalqın qəlbindəki azadlıq, özgürlük hisslərini qanadlandıraraq, onun müstəqilliyinə nail olunması.

Həqiqi vətəndaşlıq lirikası a) yurd (vətən); b) azərbaycançılıq və milli birlik; c) bütöv Azərbaycan idealı istiqamətlərində fəlsəfi-poetik aspektlərdən işıqlandırılır və onların "...ideya dünyasına daxil olduqda, fərqlərin daha çox metod və təzahür fərqi olduğu, ideyaların dərinliyində isə ağlasığmaz bir yaxınlıq və hətta eyniyyət mövcudluğu aşkara çıxdığını" **(Xəlilov, 2001: 31)** görürük. "Yüz bülbül səsi də mənə versələr, Elsiz bir nəğməmi deyə bilmərəm" **(Araz, 1986: 121)** deyən Məmməd Arazın poetik lirikası bütövlükdə "Vətən" mövzusunun özündə birləşdirən Yurd fenomeninin təsiri altındadır. Vətəndaşlıq lirikası gözümüzün önündəcə Məmməd Arazın nəinki yaradıcılığını, hətta bütövlükdə şəxsiyyətini yeni məzmunda formalaşdırır. O, öz vətəninin ecazkar təbiətini təsvir edən, vətənin gözəlliklərindən ilham alan nəğməkar bir şairdən tədricən vətəndaş şairə çevrilir. M.Arazın yaradıcılığında Vətən bir məmləkət olmaqdan daha çox, şairin həqiqət ölçüsüdür. Şair öz vətəndaşlıq lirikasında vətənin bir parçasına çevrilir.

Poeziya, ilk növbədə, həm də dil hadisəsi sayılır. Vətəndaşlıq lirikası bu mənada istisna təşkil etmir. Vətəndaşlıq lirikasının əbədiyaşar romantikası M.Araz yaradıcılığında daha çox təzahür edir. M.Araz şeirinin dili ilə doğma təbiətimizlə, yurdumuzla, sevdiklərimizlə məhrəm şəkildə ünsiyyət qurur, səmimi bir dildə danışa bilirik. Onun şeiri iç dünyamızın dilinə çevrilir, orada ən duyğusal yaşantılarımızı görürük. Çünki M.Araz yaradıcılığı da danışıq dili fondumuzun bir xəzinəsi, salnaməsidir. Ana dilimizin müasir və poetik imkanları onun yaradıcılığında özünün real vəziyyətini təcəssüm etdirir. O, dilin imkanlarını özündə əks etdirən sözə yüksək qiymət verir. Onu "qılınc çəkmək və könül almaq" üçün ən gözəl vasitə, "hər şeydən baha" sayır. Şairə görə, "söz gülləsi" ağrısı görünən, özü görünməyən qeyri-adi silahdır. M.Ə.Sabiri "sözü qurğuşun" xislətli şair tək dəyərləndirir. Özünü Xətainin varisi hesab edir: "*Xətainin qılıncını suvardım, / Məmməd Araz karandaşı göyərdi.* **(Araz, 2010: 446)**

Həqiqi vətəndaşlıq lirikası dedikdə mətndə hansı meyarın, ölçülərin əsas götürüldüyünə bir daha aydınlıq gətirmək üçün araşdırma obyektimiz olan M.Araz yaradıcılığına nəzər salmışıq. M.Arazın "Vətən, mənə oğul desə", "Bu millətin dərdi-səri", "Ayağa dur, Azərbaycan!", "Əsgər oğlu", "Tarixçi alimə", "Ya rəbbim, bu dünya sən quran deyil", "Nişançı özümüz, hədəf özümüz", "Məndən ötdü, qardaşıma dəydi", "Babək qılıncı", "Qoruyun dünyanı" kimi şeirləri əsl vətəndaşlıq lirikası nümunələridir.

Deklarativ söz və ifadələrdən, təmtəraqlı ibarələrdən ibarət saxta, süni xarakter daşıyan və ədəbi prosesin inkişafına mane olan çoxlu sayda şeirlərin şahidi oluruq. Belə şeirlərin müəllifləri ədəbi aləmə zorla da olsa yol tapır, öz yazdıqları ilə doğma dilimizin bədii imkanlarını hörmətdən salırlar.

Vətəndaşlıq lirikası poetik məhsul olaraq o zaman zay çıxır ki, orada publisistik ruh deyil, sözün müstəqim mənasında publisistikanın özü olsun və "şeir gəlini" "bəy– oxucu" üçün hazırlanan zaman "kosmetikadan" hədsiz istifadə gözü deşsin, səmimilikdən uzaq süni pafos qulağı batırsın.

Şair çox yayılmış, işlənmiş mövzularda yazanda ehtiyatlı olmalı, özündən qabaq həmin mövzuda yazan müəllifləri təkrar etməməli və sözü deyərkən obrazlılıq hesabına onun təsir gücünü artırmalıdır. Belə olmadıqda ən tanınmış, bir sıra yaddaqalan şerlərinə görə oxucu tərəfindən sevilən şairlər belə öz qələminin, imzasının dəyərini lazımi ucalıqda saxlaya bilmirlər.

**Əsas hissə / *Main Part***

"HƏQİQİ VƏTƏNDAŞLIQ LİRİKASI VƏ ŞEİRİMİZDƏ SAXTA VƏTƏNPƏRVƏRLİK

Milli dirçəlişimizdə, azərbaycançılıq məfkurəsinin formalaşmasında mühüm rol oynamış vərəndaşlıq lirikasının əbədiyaşar bir nümunəsi də M.Arazın "Məndən ötdü, qardaşıma dəydi" şeiridir. Bu şeir məzmun, forma, mətn strukturuna, intonasiyasına, həmçinin bədii ümumiləşdirmə gücünə və digər bədii keyfiyyətlərinə görə çağdaş poeziyamızın misilsiz ədəbi faktına və hadisəsinə çevrilmişdir. "Şeirin son misralarında xalqımızın uzun illər ərzində yaratdığı bir məsəlinin tutumunun ecazkar şəkildə genişləndirilərək az qala bütöv bir əsərin məzmununu əhatə edəcək formaya döndərilməsi şairə imkan vermişdir ki, son dərəcə böyük fəlsəfi bir ümumiləşdirməyə gələ bilsin; yəni torpaq üstündəki ayrı-ayrı şəxslərin çəkişmələrini, cəng-cidalını yenə də böyük bir məfhumun müstəvisi üzərinə gətirə bilmişdir: *"Ayağa dur! / Dəfn etdiyin məsələnin / Başdaşına Bir təəssüf xatirəsi yazıb, yondur:/ Səndən ötən mənə dəydi, / Məndən ötən sənə dəydi, / Səndən, məndən ötən zərbə / Vətən, vətən, sənə dəydi..."* **(Abdullayev, 2012: 230).**

M.Arazın "Ya rəbbim, bu dünya sən quran deyil" şeirində "Didişmə dişləri" bitirən insanın "içdiyi zəhərdir, qusduğu zəhər; qəhəri bəhərdir, bəhəri qəhər" **(Abdullayev, 2012: 220).**

M.Arazın vətəndaşlıq lirikasında şedevrlərdən biri də "Vətən mənə oğul desə" əsəridir ki, onun barəsində ədəbi tənqid yekdil olmamış, əsəri birmənalı qiymətləndirməmişdir. Belə ki, bəzi tənqidçilər şairi təqsirləndirmişlər ki, guya müəllif vətəninin qayğısına qalmaqdansa, ondan daha çox umur. Əslində, şeirdə, bəlkə də bir ərkyanalıq, anaya-vətənə şıltaq körpə umusu mövcuddur. Lakin bu heç də o demək deyil ki, şair yalnız vətəndən mükafat, təltif və digər bu tip şeylərin giley- güzarındadır. Şeirin fakturası tamamilə bunun əksini göstərir: *"Dünənimi daşdan asan deyiləm,/ Dünənimə qəbir qazan deyiləm./ Ürəyimsiz kəlmə yazan deyiləm, /Nə qədər ki, öz əlimdi yazanım"* **(Araz, 2010: 280).**

M.Araz yaradıcılığında ən yaxşı nümunələrdən sayılan "Oxuyan Təbriz" şeirində Təbriz Azərbaycanın, Azərbaycan xalqının simvolu olaraq mənalandırılmışdır.

*Gərək dil susanda əllər danışa,*
*Əllər bağlananda dillər danışa,*
*Elə danışalar ellər danışa...*
*Dəli gülüşlərim ağlar başımda,*
*Təbriz oxuyurdu dağlar başında* **(Araz, 2010: 269).**

Dəli gülüşlərlə oxuyub- ağlayan Təbriz – ikiyə bölünən Azərbaycan xalqını təmsil edır.

Əgər M.Arazın *"Kimin alın təri, ürək qanını / Mükafat verirsən kimin adından"* **(Araz, 1992: 40)** deyə poetik etirazını gördüyümüz "Nobel mükafatı" şeirində Azərbaycan haqqı tapdanan xalq obrazındadırsa, şairin *"Sağıb, sorub, / Sonra yorub / qısır inək kimi, / Biz onu satmaq istəyirik, / Ölü dənizlər muzeyinə atmaq istəyirik"* **(Araz, 1992: 268)** poetik harayı ilə sərgilənən "Professor Gülə məktub" şeirində xalq özü bir növ ittiham obyektinə çevrilir. M.Arazın:

*Azərbaycan–mayası nur, qayəsi nur ki...*
*Hər daşından alov dilli ox ola bilər.*
*"Azərbaycan" deyləndə ayağa dur ki,*
*Füzulinin ürəyinə toxuna bilər .* **(Araz, 2010: 37)**

kimi dillər əzbəri olan bəndi, yaxud:

*Bəxtimə bir yazı qurumu dəydi,*
*Taxtıma iki əl qırımı dəydi,*
*Gözümə bir Araz şırımı dəydi,*
*Yüz Araz töküldü gözümdən mənim* **(Araz, 2010: 260)**

kimi ağrılı misraları vətəndaşlıq lirikasının əbədiyaşar romantikasına ən parlaq nümunələrdir. "Yazı qurumu" deyərkən Gülüstan, Türkmənçay müqavilələrini nəzərdə tutan şair "Taxtıma iki əl qırımı dəydi" ifadəsində İran və Rusiyanın Azərbaycanı Araz çayı sərhəd olmaqla öz aralarında bölməsini ürək ağrısı ilə oxucusuna çatdırırdı.

Cəsurluğu, qorxmazlığı ilə xalqın yaddaşında iz salmış, neçə-neçə şeiri dilimizin əzbəri olmasına baxmayaraq, bu baxımdan X.R.Ulutürk yaradıcılığı da tənqid obyekti ola bilər. Şairin "Mən Azərbaycanam" şeirindən aşağıdakı misralara diqqət edək:

*Qorqudum, Koroğlum, şah Xətayimlə*
*Qüdrətəm, cürətəm, şöhrətəm, şanam* **(Ulutürk, 2014: 14).**

Yaxud:

*Oğlum Xiyabani, doktor Ərani*
*İşığa qərq etdi zülmət İranı* **(Ulutürk, 2014: 14).**

Bu tipli misralarda şairin vətəndaş sevgisi poetik düşüncə tək yox, publisistik düşüncə olaraq misraya çevrilir. Belə deyimlərin heç bir poetik çəkisi yoxdur.

Şairin başqa bir şeirindən ("Ayla günəş arasında") misal çəkək:

*Nişat, Ağa Məsih, Zülali, Bahar,*
*Seyid Əzim kimi ustadların var* **(Ulutürk, 2014: 18).**

Axı hansısa xalq qəhrəmanının, ya da şairin sadəcə adını çəkməklə poetik yükə malik şeir parçası yaratmaq olmaz. Ya da: "... Dövran rəzil, mühit yaramaz **(Ulutürk, 2014: 19)** və ya: "Firdovsi, əlbəttə, mətin sənətkar!", "İncidi Firdovsi, əl çəkdi, getdi" **(Ulutürk, 2014: 19)** misraları heç bir bədii keyfiyyətə və beləliklə də, təsir gücünə malik deyil.

Sənət yoluna yenicə qədəm qoyan gənc qələm sahiblərini apardıqları eksperimentlərə görə hansı kontekstdəsə başa düşmək olar, amma sözü, sənəti illərin sınağından keçmiş təcrübəli şairlərin, bəzən də ustad sənətkarların Nizami, Nəsimi, Füzuli yadigarı söz sənətinə ruhsuz, hətta başdansovdu və məsuliyyətsiz yanaşması təəccüb və təəssüf doğurur. Bu azmış kimi boş söz yığını olan misralara ədəbi tənqid özü bildiyi şəkildə don geyindirir, heç bir poetik yükü olmayan yenilikdən məhrum şeirləri nümunə kimi misal gətirir. Bu misallar, sadəcə, bir təbiət lövhəsinə, uğurlu, uğursuz bir sevginin təsvirinə deyil, vətən mövzusuna, vətəndaşlıq lirikasına aid olduqda nə "şeir" müəllifini, nə tənqidçi-ədəbiyyatşünası anlamaq olur.

Poeziyadan uzaq olan söz yığını bəndlər halına salınıb, şeir adı ilə zaman-zaman ədəbi orqanlarda çap edilir, bu azmış kimi onların tənqidçi, ədəbiyyatşünas adını daşıyan, əslində tərifçi havadarları tapılır və beləliklə də, şeir olaraq heç bir məziyyəti olmayan, heca vəzninin "anasını ağladan" sönük mətnlər barəsində mədhiyyələr yazılır.

Misal üçün Oqtay Rzanın "Adlı, ünvanlı misralar" adlı 312 səhifəlik şeirlər kitabında poeziya naminə nəinki bir şeir, bir bənd, heç bir misra da tapa bilməzsən. Maraqlıdır ki, "Ürək boyda odum qalsa..." adlı sözardıda yazıçı N.Hacızadə müəllifi vətəndaş şair tək təqdim edərək yazır: "Onun Vətən torpağına, ulu xalqımızın şərəfli tarixinə, Azərbaycan bir sıra şeirlər dərsliklərə daxil edilmişdir" **(Rza, 2005: 308).** Sonra O.Rzanın "dərsliklərə daxil edilmiş" şeirlərindən misal çəkib, onun haqqındakı tərifləri "əsaslandırır":

*Əsirgəmir uğrunda can,*
*Min-min igid, Azərbaycan!*
*Yaşa, eşqi çiçək açan*
*Azad, vahid Azərbaycan!* **(Rza, 2005: 308).**

Təsəvvür edin ki, bu cür bəsit, ucuz şüarçılıqdan irəli getməyən, heç bir poetik dəyərə malik olmayan uğursuz söz yığını şeir adı ilə dərsliklərə salınır, orta məktəblərdə balalarımıza öyrədilir... Biz övladlarımızda beləmi şeir zövqü formalaşdırırıq? Deyirik, ay məktəblilər, budur Azərbaycan poeziyasının nümunəsi, buyurun, tanış olun?!

Kitabdakı "şeirlər" başdan-ayağa əsl saxta patriotizm nümunələridir. Dgər mətnlər də yuxarıdakı sitatımızdan mənfi mənada heç də geri qalmırlar. Tanınan, tanınmayan ayrı-ayrı adamlara həsr olunmuş bayağı mətnlər tamam biabırçılıqdır. Təcrübəli pedaqoq olan, qələm adamı adına iddialı bir şəxs üçün bu, əlbəttə, başucalığı gətirmir. Müəllifin "Aydınımız, Dilarəmiz" *("Həlak olub haqq yolunda, / Vahid Vətən, xalq yolunda, yolunda.., / Şuşa, Şəki, Qax yolunda, / Aydınımız, Dilarəmiz"* **(Rza, 2005: 7),** "Əhəd müəllim" *("Öpüb qədəmini Ağdam, Şuşa, Qax, / Ordubad, Şamaxı, Balakən, Qazax.., / Ocaqda bərkidi Əhəd müəllim... / Sülalə fəxr edir onun adıyla"* **(Rza, 2005: 11)** və s., yaxud *"Bayramın mübarək, Nazim Kazımlı, / Hamının əzizi–bizim Kazımlı"* **(Rza, 2005: 161)** və i.a. misraları (əgər misra adlandırmaq olarsa) şeir adı ilə kitaba yol tapmamalı idi.

O. Rzanın "Rübai karvanı, dördlük çələngi" adlı digər şeirlər kitabını vərəqlədik. Müəllif "vətənpərvərlik şeirləri"ndəki yanlışlıqlara bəlkə bu toplusunda düzəlişlər edib, son qoyub? Təəssüf ki, yenə də bu tanışlıqdan yalnız peşmanlıq hissi keçirdik:

*Çətin məqamlarda dostunu sına,*
*Qütbü də dolaşıb gəz yana-yana!*
*İqlimin doqquz cür əlvan çələngi*
*Necə də yaraşır Azərbaycana!* **(Rza, 2006: 39)**

Və ya:

*Yola salacaqsan min qərinəni,*
*Qəm, kədər qismətin olmasın, Vətən!*
*Təbiət füsunkar yaradıb səni–*
*Bircə çiçəyin də solmasın, Vətən!* **(Rza, 2006: 119)**

Heç cür anlamaq olmur; yazdıqlarının bədii cəhətdən zəifliyi 2X2=4 qədər üzdə olduğu halda, necə olub ki, filologiya elmləri doktorları V. Arzumanlı, Ə.Tanrıverdi və başqa ədəbiyyatşünaslar O. Rzanın "şeirlərindən", o cümlədən onun "Rübai karvanı, dördlük çələngi" və "Adlı, ünvanlı misralar" adlı kitabından misallar çəkərək, onu Azərbaycanın bənzərsiz və nadir təbiətini şirin və dolğun misralarda vəsf edən şair tək xarakterizə etmiş, *"Sevinirəm tarixinə varanda, / Şah İsmayıl, Həzi, Gəray ruhlusan, / Qələbə çal, qələbə çal, həmişə, / Milli Ordu, qüdrətli ol həmişə"* **(Rza, 2013: 6)** yaxud *"Yumruq kimi birləşir xalq,/ Gəncə, Tərtər, Tovuz, Qazax, / Başın hökmən əziləcək, / Qarabağdan əlini çək!"* **(Rza, 2013: 6)** kimi misraları şairin uğurlu poetik axtarışları olaraq qələmə vermişlər. Fikrimizcə, ədəbiyyatşünaslar yanlış mövqe sərgiləməklə, oxucu zövqünü korlamaqda müəllifə şərik çıxmışlar.

Ə.Tanrıverdi: "Şairin poetk dünyası baxma bucağından asılı olmayaraq bütün parametrlərdə zəngin və rəngarəngdir,"– deyir. Sonra O.Rzanın "İgidlik dərsi al Qorqud elindən", "Banuçiçək nəvəsinə bənzəyir" **(Rza, 2013: 8)** və başqa bu kimi misralarını "Dədə Qorqud"dakı atalar sözləri səviyyəsinə yüksəlmiş "Kül təpəcik olmaz", "Güyəgü oğul olmaz" tək deyimlərlə müqayisə edir **(Rza, 2013: 68)**. Zənn edirik, burada heç bir şərhə ehtiyac qalmır.

Qafiyəpərdazlıqdan ayrı bir keyfiyyəti olmayan bənd şəklinə salınmış söz yığınlarını ədəbiyyatşünas alim "poetik misralar" adı ilə beləcə qiymətə mindirərək təqdim etmişdir. Halbuki çəkilən misallardakı qrofamanlıq, şüarçılıq, trafaretlik göz qabağındadır.

O.Rzanın hərəsi bir neçə hissədən ibarət olan ayrı-ayrı illərdə və nəşriyyatlarda çap edilmiş "Adlı, ünvanlı misralar", "Rübai karvanı, dördlük çələngi" adlı şeirlər kitablarına istinadən müəllifin nə bədii təxəyyülündən, nə onun bədii ümumiləşdirmə bacarığından danışa bilirik. Bu kitablarda "estetik məziyyətin... təzahürü" **(ƏTL, 1978: 26)** yoxdur. Formanın – köhnə, məzmun ifadəsinin – bəsit və tapdanmış olduğunu görürük. Lirik "mən"in vətənlə bağlı arzularının "bədii gücü" olmadığından oxucuda heç bir duyğu oyatmır, oxucu da müəllifə qoşulub, onunla birgə onun arzuladığını arzulaya bilmir.

Çernışevski "Estetika" əsərində yazır: "...sifəti gözəl çəkməklə, gözəl sifəti çəkmək tamamilə başqa şeylərdir" **(Aristotel, 2006: 18).** Məsələ burasındadır ki, saxta patriotizmin "yaradıcıları",– bu abzasdakı sitatdan bəhrələnərək fikrimizi bir qədər fərqli şəkildə desək,– "gözəl olan"ın, "gözəl sifət"in (Vətənin, onun təbiətinin) poetik əksini düzgün "çəkə", yaxud, olanın, "sifət"in gözəl poetik əksini verə bilməmişlər.

Başqa tanınmış bir şairin yaradıcılığına qısaca da olsa, ekskurs edək. Tofiq Bayram "Ana dilim" adlı şeirində yazır:

Qalxıb Şahdağına söz istəyirəm,
Çatsın hay-harayım dinləyənlərə,
Mən nankor deyirəm, nacins deyirəm–
Öz ana dilini bilməyənlərə **(1).**

Birinci misradakı "Şahdağına" sözü, əslində, "Şahdağa" şəklində olmalıdır, şünki, dağın adı "Şah dağı" deyil, "Şahdağ"dır. Görünür hecanın tələbinə görə (6+5) müəllif belə edib. Qalan misralarda da obrazlılıqdan söhbət gedə bilməz. Xüsusən də, "Mən nankor deyirəm, nacins deyirəm" kimi ifadələrdə şeiriyyət axtarmaq bataqlıqdan ekzotik mənzərə ummaq tək bir şeydir. Yenə həmin şeirdən:

Mən qədim "Qarabağ şikəstəsi"yəm,
Üzeyir nəfəsli gül dəstəsiyəm.
Vaqifin, Vurğunun nifrət səsiyəm–
Öz ana dilini bilməyənlərə **(1).**

Əsl şeirdən çox qafiyələnmiş publisitik mətni xatırladan "Ana dilim" mənzuməsi nə az, nə çox düz 16 bənddir və az qala bütün bəndlər saxta pafosla doludur.

**Tədqiqat metodu / Research method**

Bu məqalədə tarixi-bədii, elmi-təsviri, tipoloji-müqayisəli tədqiqat metodundan istifadə edilmişdir. Məqalənin yazılmasında dünya və Azərbaycan alimlərinin müvafiq əsərlərinə müraciət edilmiş, onların təhlil və elmi yanaşmalarına istinad olunmuşdur.

**Nəticə / *Conclusion***

N.Bualo "Poeziya sənəti"nin üçüncü nəğməsində yazırdı: "Əgər bir tabloda canlı və gözəl rənglərlə nəhəng bir əjdaha, ya zəhərli bir əfi təsvir edilmişsə, o tablo bizim də nəzərimizi cəlb edər, ona tamaşa edərik. Sənətin sirri belədir: həyatda bizə qorxunc və dəhşətli görünən şeylər sənətkarın fırçasında dəyişir, gözəlləşir" **(Bualo, 2007: 18).** Bizə görə, bu fikir təkcə rəsm əsərinə aid deyil, digər müvafiq sənət sahələri üçün də keçərlidir. Amma bədii cəhətdən yarıtmaz mətnlərdə,– kimin qələmindən çıxmasından asılı olmayaraq,– ən gözəl şeylər bizə elə təqdim edilir ki, o gözəlliyin özü gözdən düşür, "qorxunc və dəhşətli" görünür.

"Bəşəri məhəbbətdən kənarda vətən sevgisi yoxdur" **(ASS, 2012: 297)** Valideynlərimiz, övladlarımız, qohumlarımız bizə əzizdir; lakin "məhəbbət haqqında bütün təsəvvürlərimiz bir sözdə– "Vətən" sözündə birləşmişdir" **(ASS, 2012: 297)**. "Vətənpərvərlik təkcə vətəni sevmək deyil. Bu, daha dərin bir hadisədir... Bu, özünün vətəndən ayrılmaz olduğunu dərk etmək və xoşbəxt və bədbəxt günlərini onunla birgə yaşamaqdır" **(ASS, 2012: 297)** və "öz ölkəsini sevməyən heç nəyi sevməz" **(ASS, 2012: 297)** Bir də, "torpağı itirənlər ən əvvəl torpaq olub o torpağa qarışmaq haqqını itirirlər" **(ASS, 2012: 297).**

Aristotelin "Poetika" əsərində deyildiyi kimi: "Müəyyən bir əsər nəzm ilə də yazıla bilər, nəsrlə də qafiyəli də, qafiyəsiz də. Məzmunun özü poetik olmadığı halda, nəzmlə yazılan bir əsərə, əslində, sənət əsəri demək olmaz... Sənətin şəkillərini bir- birindən ayıran digər əlamət "nəyin təqlid olunması"dır" **(Aristotel, 2006: 21).** Biz bu sitata "digər əlamət"lərdən biri kimi nəyin "necə təqlid olunması" postulatını da əlavə etmək istərdik. Belə ki, nəzəri fikir olaraq bu məşhur deyim də sənətdə təsdiqini tapmış qaydadır.

Nə qədər ki, saxta vətənpərvərlik şeirləri tənqid olunmayacaq, yaxşı və pisin qiyməti ədəbi tənqid tərəfindən verilməyəcək, süni pafosla "şirələnən" və oxucu zövqünü korlayan şeirlər zorla "sev" deyə "qışqıraraq" mövzunun özünü gözdən salmağa xidmət edəcək.

**Ədəbiyyat siyahısı / References**

1. Xəlilov, S. (2001). Cavid və Cabbarlı. Müxtəlifliyin vəhdəti Bakı: "Azərbaycan Universiteti" nəşriyyatı, 180 s.
2. Araz M. (1986). Secilmiş əsərləri. Bakı: Azərnəşr, 480 s.
3. Araz M. (2010). Seçilmiş əsərləri. Bakı: Xalq Bank, 656 s.
4. Abdullayev C. (2012). Əsərləri. 7 cilddə. V cild. Bakı: Elm və təhsil, 264 s.
5. Araz M. (1992). Daş harayı (şeirlər, poemalar). Bakı: Yazıçı, 255 s.
6. Araz M. (2003). Secilmiş əsərləri. 4 cilddə. I cild (şeirlər). Bakı: Ozan, 348 s.
7. Araz M. (1983). Dünya sənin, dünya mənim (şeirlər). Bakı: Yazıçı, 301 s.
8. Araz M. (2003). Secilmiş əsərləri. 4 cilddə. II cild (şeirlər). Bakı: Ozan, 332 s.
9. Ulutürk X.R. (2014). Taparam səni (şeirlər və poemalar). Bakı: Apostrof, 300 s.
10. Rza O. (2005). Adlı, ünvanlı misralar.2-ci hissə (şeirlər) Bakı: Aspoliqraf, 312 s.
11. Rza O. (2006). Rübai karvanı, dördlük çələngi. 1-ci hissə (şeirlər). Bakı: XXI-Yeni Nəşrlər Evi, 280 s.
12. Rza O. (2013). Adlı, ünvanlı misralar. 3-cü hissə (şeirlər). Bakı: Yazıçı, 316 s.
13. Ədəbiyyatşünaslıq terminləri lüğəti. (1978). Tərtibçi: Ə. Mirəhmədov. Elmi redaktoru: M.Aslanov. Bakı: Maarif, 200 s.
14. Aristotel. (2006). Poetika. Bakı: "Şərq-Qərb", 120 s.
15. Fransız ədəbiyyatı antologiyası. (2007). III cild. Buraxılışa məsul: Ə.Güləliyev. Bakı: Şərq-Qərb, 408 s (Bualo N. Poeziya sənəti. Tərcüməçi: Ə.Ağayev. s.7-36).
16. Aforizmlər: seçilmişlərdən seçilmişlər. (2012). Müəllif-tərtibçi: S.Xəlilov, Bakı: Çaşıoğlu, 560 səh.

**URL:**

http://davam.az/7800-azrbaycan-dbiyyatnda-cnub-hsrtinin-ifadsi.html (V.Əzizova. Azərbaycan ədəbiyyatında cənub həsrətinin ifadəsi, 2012, 27 dekabr)

# SƏMƏD VURĞUN YARADICILIĞINDA XALQ MUSİQİSİ VƏ MAHNILARIN ROLU

**TÜRKAN CARÇIYEVA**
Bakı Dövlət Universitetinin Qazax filialı
Bölmə- Azərbaycan, Fakültə- Filologiya
Carciyevaturkan@gmail.com
Azərbaycan, Qazax

**XÜLASƏ**

Səməd Vurğun öz poeziyasını xalqın həyatı və mübarizəsi, mənəvi sərvəti ilə bağlaya bilən xalq yaradıcılığından tez-tez istifadə edən sənətkarlardandır. Səməd Vurğunun bəhrələndiyi xalq yaradıcılığı nümunələrindən biri də nəğmələr və şərqilərdir. Görkəmli yazıçı folklorun digər janrları kimi xalq mahnılarına da yaxından bələd idi. Səməd Vurğunun şeir və dramlarında yer alan xalq yaradıcılığından nəğmələri və şərqiləri seçmək çətindir. Yazıçının pyeslərindəki bəzi mahnı və şərqilər xalqın kədərini, ağrısını, iztirabını, sevincini, arzu və istəklərini ifadə edir. "Vaqif" tamaşasındakı demək olar ki, bütün mahnıların müəllifi sadəcə Səməd Vurğunun özüdür.

Şair bəzən xalq mahnılarını dəyişdirərək müasir dövrə uyğunlaşdırmışdı.

Şifahi xalq yaradıcılığının ibrətamiz, ecazkar nümunələrdən Səməd Vurğun da yan keçə bilməmiş, istər poeziya, istərsə də dramaturgiyasında bəhrələnmişdir. Səməd Vurğun şifahi xalq ədəbiyyatı nümunələrindən elə məharətlə istifadə edib ki, qoşmaları, gəraylıları və s.ni yazılı ədəbiyyat nümunəsi kimi yox, şifahi xalq ədəbiyyatının ən gözəl inciləri kimi görürük. Bu nümunələrin hansının xalq yaradıcılığına, hansının şairə aid olduğunu seçmək mümkün olmur. Səməd Vurğun poeziyası demək olar ki, başdan ayağa xalqın həyat və mübarizəsi ilə bağlıdır. Sənətkar üçün ən mühümü öz xalqının arzularını, düşüncələrini, istəklərini qələmə almaq, onları əks etdirmək, xalqının adət-ənənəsini gələcək nəsillərə öyrətməkdir. Onun poeziyası xalq yaradıcılığı ilə zəngindir. Gözəl deyimdir ki, "Milli olmayan, öz xalqına bağlı olmayan sənətkar heç vaxt xəlqi ola bilməz".

Ümumiyyətlə, şairin dramlarında məhəbbət dastanlarına aid olan şirinlik, axıcılıq, romantika var. Xalqımızın qəlbindən çıxan mahnılar əsərlərin bədii təsir gücünü daha da artırmışdır.

**Açar sözlər: mahnılar, muğam, folklor**
**Key words: songs, mugam, folklore**

## GİRİŞ

**Mövzunun aktuallığı.** Bildiyimiz kimi bədii ədəbiyyat şifahi və yazılı olmaqla iki yerə ayrılır. Amma yazılı ədəbiyyatın şifahi ədəbiyyat nümunələrindən qidalanmasını da inkar edə bilmərik. Azərbaycan ədəbiyyatında da hər zaman şairlərimiz, yazıçılarımız folklora müraciət etmiş, onun motivləri əsasında əsərlər yazmışdılar. "Azərbaycanın ədib və şairləri bədii salnamələr yaradır, onun ayrı-ayrı səhifələrinində xalqımızın rəvayətə, nağıla dönmüş maraqlı tarixini canlandırmışdır" (Folk və ƏT. 2017). Bu baxımdan xalq yaradıcılıq nümunələri olan miflər, əfsanələr, rəvayətlər, bayatılardan və s obrazların təsvirində ədiblərimiz məharətlə faydalanmışlar. Canlı xalq dilinə və təfəkküründə əsaslanan poeziyamızın janrlar, forma və vəzn keyfiyyətlərini zənginləşdirən, fərdi yaradıcılıq axtarışları ilə Azərbaycan ədəbiyyatını dünyaya tanıtdıran və sevdirən böyük şairimiz Səməd Vurğun olmuşdur. Sözsüz ki, Azərbaycan ədəbiyyatını böyük hadisələr yaradan, Səməd Vurğunsuz təsəvvür etmək qeyri – mümkündür.

Folklorumuz zənginliyi, rəngarəngliyi ilə bir xəzinədir. Folklorumuzun əsas incilərindən biri də mahnılardır. Mahnı xalqın hiss və həyəcanları ilə əlaqədar yaranır və onun mənəvi ehtiyacından doğub inkişaf edir. Mahnıların ilk yaradıcısı xalqdır. İbtidai icma dövründən zəmanəmizə qədər mahnı xalqın özü ilə yol yoldaşı olmuşdur. Şifahi xalq ədəbiyyatının lirik janrları sırasında mahnıların xüsusi yeri vardır. Əsrlər boyu xalqımızın keçirdiyi hər cür hisslər: şənlik, sevgi, fərəh, kədər, nifrət, məhəbbət, qəriblik və s. mahnılarda öz əksini tapmışdır.

Mahnılarda xalqın ictimai-sosial məsələləri, tarixi hadisələrə olan münasibəti öz bədii inikasını tapmışdır.

Folklor nümunələri, o cümlədən mahnılar bütün dövrlərdə sənətkarların diqqət mərkəzində olmuşdur. Onlar öz yaradıcılığında bu tükənməz xəzinədən gərəkli inciləri götürüb əsərlərində istifadə etmişlər. Belə sənətkarlar sırasında Səməd Vurğun, Mirzə İbrahimov, Bəxtiyar Vahabzadə, Nəbi Xəzri, İsa Hüseynov və b. göstərmək olar.

Əsərlərində folklordan geniş istifadə edən xalq şairi Səməd Vurğun el ədəbiyyatının incilərindən olan mahnılara da yaxından bələd olmuş, öz yaradıcılığında onlardan ustalıqla istifadə etmişdir.

"Səməd Vurğun yaradıcılığında xalq musiqisi və mahnıların rolu" adlı tədqiqat işi giriş, tədqiqat metodu, nəticə və ədəbiyyat siyahısından ibarətdir.

**TƏDQİQAT METODU**

Səməd Vurğun əsərləri üçün xüsusi mahnılar yaradırdı. "Vaqif" dramında Gülnarın, gürcü qızı Tamaranın dili ilə verilən mahnılar əsərə xüsusi zövq verirdi. Bu mahnıların yaradıcısı müəllif özü idi və onları el mahnılardan seçmək mükün olmurdu.

Ayrı düşdü tərlan könlüm,
Öz mehriban yuvasından,
Göy üzünün durnaları,
Deyin, vətən havasından.

Bir dustağam qolum bağlı,
Bir qəribəm sinəm dağlı
Bir xəstəyəm qəm otaqlı,
Ürəyimin yarasından (Vurğun, 2005).

Külək əsər, bel bükülər,
Könül yanar, can sökülər,
Gecə-gündüz yaş tökülər,
Gözlərimin qarasından (Vurğun, 2005).

Səməd Vurğunun yaradıcılığına nəzər yetirdikdə çox saylı musiqi alətlərinin adlarına rast gəlmək mümkündür. Tanınmış folklorşünas Paşa Əfəndiyev qeyd edirdi ki, bu musiqi alətlərinin hamısı öz yerinə, ifa manerasına, funksiyasına, vəzifəsinə görə seçilib yerli-yerində əsərə daxil edilmişdir: saz, tar, kaman, qaval, qarmon və s. Səməd Vurğunun "Aygün" poemasında diqqət yetirdikdə musiqi alətlərinin adları ilə tanış ola bilirik.

Gülzarın da flyetası yayılır cana,
Rəfiqənin sinəsində cuşa gəlir tar.
İnsan əli yüz dil verir neyə, kamana
Danışansa ürəklərdir, bir də arzular.

Hələ Elyar...hələ onun bariton səsi,
Gurladıqca meydan açır zəfərlər deyə.
Trambonla valtornanın güclü nəfəsi
O bu çoban tütətinin sadə səsində.

Əfğanun da ağır-ağır arabir dinir,
Dünya görmüş, zaman görmüş qocalar kimi.
Torpaq olmuş qocalar da sanki sevinir
Onların da bu sənətdə haqqı var kimi (Vurğun, 2005).

Üzeyir Hacıbəyov deyirdi: "Mən poeziyanı musiqisiz təsəvvür edə bilmirəm. Bu mənada Səmədin şeirləri əvəzsizdir" (Folk. və ƏT 2017 ).

Cəlal Abdullayev haqlı olaraq aşağıdakıları qeyd edirdi: "Şairin ayrı-ayrı əsərlərində verilən xalq mahnıları müəyyən ədəbi priyom rolunu oynayaraq qəhrəmanın daxili aləmini açmağa xidmət edir. Bu mahnılar hər zaman əsərin mətni, ideyası ilə üzvi vəhdətdə götürülür. Xalq mahnıları vasitəsilə şair qəhrəmanın hiss və həyəcanları, arzu və istəklərini verir" (Abdullayev C. 1976).

Səməd Vurğunun "Vaqif" pyesində muğam sənətinin bir növü "Rast" ın da adı çəkilmiş və xanəndələrin dilindən mahnı verilmişdir.

Gözüm yollarda qalmışdır, xəbər yox Kür qırağından,
Usanmaq bilməyir könlüm yaşılbaşlar sorağından.
O yerlər min xəyal eylər, təbiət şerə layiqdir,
Öpər bülbül səhər tezdən gülün yaqut dodağından.

Çəmənlər, yasəmənlər göz vurub, min elivə göstərsə,
Durar könlüm, çıxar seyrə həyatın qəm otağından...
Keçər aylar, keçər illər, yaz, ey Vaqif, ömür azdır,
Düşər bir gün laçın könlün şeir-sənət marağından (Vurğun, 2005).

Azərbaycan xalq musiqisini muğamlarsız təsəvvür etmək mümkün deyil. Bütün mədəni dünyada şöhrət qazanan, Bethoven kimi bəstəkarların ilham mənbəyinə çevrilən muğam və təsniflərin söz hissəsi yazılı ədəbiyyata söykənməklə yanaşı, xalq poeziyasından da qidalanmışdır (AZ. ƏT. 2004 ). Səməd Vurğun yaradıcılığında tez-tez işlənən bu nümunələr əsərə xüsusi rəng qatıt:

Hər bağın, hər bağçanın bir bülbüli-şeydası var.
Hər duyan qəlbin, əzizim, gizli bir sevdası var.
Ruhu oxşar, qəlbi oxşar incə bir canan səsi,
Gah gülər, gah ağlayar-hər dəmdə bir mənası var.
Can alan hər nəğmənin mənası yalnız eşqdir,
Göz görüb, əl çatmayan ulduzlu bir dünyası var.
Böylə bir söz var ki, Vaqif indi bir Məcnun olub,
Şerü sənət adlanan nazəndə bir leylası var (Vurğun, 2005).

Səməd Vurğunun "Bakının dastanı" poemasında isə Muğam sənətinin növlərinin adı çəkilmiş, bu da müəllifin xalqımızın musiqi yaradıcılığının köklərinə də bələd olduğunun göstəricisidir:

"Zabul segah"... dəli"Şahnaz"... Mənalı "Şur"...
Sanasan ki, bir ananın övladıdır.
Ah, o xallar, o guşələr... fikir uçur,
Hər nəfəs də bir mənanın ustadıdır,
Bir də ki, "Rast"... sarı simdə nələr deyir... (Vurğun, 2005).

Səməd Vurğunun əksər poetik nümunələrində xüsusi bir musiqilik, ahəng ritm, melodiklik vardır. Şair xüsusilə yazdığı sırf lirik və epik-lirik əsərlərində buna yetərincə əhəmiyyət vermişdir. Sənətkarın "Vaqif" pyesində Kürd Musanın dilindən verilən nümunələr obrazın daxili aləminin açılmasında əsaslı rol oynamışdır:

Qərənfiləm qələmsiz,
Qərarım yoxdur sənsiz,
Yorğanına od düşsün,
Necə yatırsan mənsiz?

Ceyranam, düzə gəlləm,
Otlaram, düzə gəlləm,
Yüz il qəzəmət çəksəm,
Qurtarsam, sizə gəlləm (Vurğun, 2005).

Xuramanın dilində verilən nəğmədə də xüsusi bir ahənglik yaradır. Müəllif folklorumuzun incisindən istifadə edərək obrazın keçirdiyi hissləri, tələtümləri oxucuya çatdırmışdır.

Bir ceyrandım, ürkütdülər yatağımdan,
Bir quş idim, ayrı düşdüm budağımdan,
Külək əsər, yarpaq düşər, çiçək solar...
Viran qalmış mənim bu can otağımdan (Vurğun, 2005).

Səməd Vurğunun "İnsan" pyesində də folklorumuzun əvəzsiz incisi olan mahmılardan istifadə edilmişdir. Müəllif əsərdə ahənglik yaratmaq üçün bəzən sürətlərim dilindən də mahnılar verir.

Paşa Əfəndiyev yazırdı ki, Səməd Vurğunun əsərləri üçün bayatılar və mahnılar xüsusi ovqat yaradırdı (Əfəndiyev, 1992). "İnsan" pyesində də Ozanın, Eldarın, Cəlalın dilindən verilən mahnılar dediklərimizə parlaq nümunədir:

"Məryəm oğlu" çalınır. Eldar oxuyur:
Binələri çadır-çadır,

Çox gəzmişəm özüm dağlar.
Qüdrətini sizdən aldı
Mənim sazım, sözüm, dağlar!

Maral gəzər asta-asta,
Enib gələr çeşmə üstə,
Gözüm yolda, könlüm səsdə,
Həsrətinə dözüm, dağlar!
Qayaları baş-başadır,
Güneyləri tamaşadır,
Gödək ömrü çox yaşadır-
Canım dağlar, gözüm dağlar!

Bir qonağam bu dünyada,
Bir gün ömrüm gedər bada,
Cəlalı da salar yada
Düz ilqarlı bizim dağlar! (Vurğun, 2005).

Maraqlısı odur ki, əsərdə ifa olunan şeir parçalarının özü də musiqinin ahənginə uyğun səslənirdi. Cəlalın və Eldarın dilindən verilən aşağıdakı şeir parçaları musiqiyə uyğun ahənglə ifa olunaraq, əsərin səslənməsində qeyri-adi ovqat yaradırdı:

Bir bağam ki, xəzan görməz camalım,
Süsənlərim, sünbüllərim var mənim.
Gözəlliklə bir yarandı kamalım,
Dastan deyən bülbüllərim var mənim.

Ovçu keçər yenə Muğan düzündən,
Oxlanmasın bir ceyranı gözündən.
Bülbül öpər qızılgülün üzündən,
Allı-güllü fəsillərim var mənim.

Havalanıb qartal kimi mərd uçan,
Şimşək olub zülmətlərdən yol açan,
Qoca Şərqə kamalından nur saçan
Ağır təbli nəsillərim var mənim (Vurğun, 2005).

Eldarın dilindən:
Hər obanın bir yaylağı,
Hər tərlanın öz oylağı,
Dolaylarda bahar çağı
Bir doyunca gəzim, dağlar!

Qayaları baş-başadır,
Güneyləri tamaşadır,
Gödək ömrü çox yaşadır
Canım dağlar, gözüm dağlar! (Vurğun, 2005).

Səməd Vurğunun əsərlərində verilən mahnıları el mahnılarından seçmək qeyri-mümkündür. “Fərhad və Şirin” romantik dramında Fitnənin və qızların dilindən deyilən şərqilərə diqqət yetirək:

Oyan, oyan gözəl Pəri...
Unut getsin bu qəmləri.
Oyan öpsün ağ üzündən
İlk baharın xoş səhəri.
Oyan, oyan gözəl pəri (Vurğun, 2005).

Səməd Vurğunun aşıq poeziyası üslubunda yazdığı gəraylı və qoşmalarını, poema və dram əsərlərində verilən mahnı və bayatılarını da xalq əsərlərindən fərqləndirmək olduqca çətindir.

Sənətkarın “Fərhad və Şirin” əsərində Ozanın dilindən verilən nümunə aşıq poeziyası üslubunda yazılmış və onu xalq əsərlərindən seçmək çətindir.

Qoy ellər bağçası laləzar olsun,
Hər keçən günümüz bir bahar olsun!
Hər evin dünyada bir ustadı var,
Bizim də Fərhadın əli var olsun!... (Vurğun, 2005).

Səməd Vurğunun “Komsomol” poemasında oxuyuruq. “Aldı sinəsinə sazını Vəli, Simlərin üstündə gəzdikcə əli”.

Ay ağalar, ay paşalar,
Dərd başımdan aşdı yenə,
Açıldı Tanrının gözü,
Sellər, sular daşdı yenə...

Dəyişdi şahların adı,
Dünya rahat oturmadı,
İnsan oğlu dinc durmadı,
Düz yolunu çaşdı yenə...

Sinəmə töksələr, barı.
Quzeydə saxlanan qarı:
Talan oldu elin varı,
Aralıq çaxnaşdı yenə (Vurğun, 2005).

Heç gülmədi aşıq Vəli
Haqqa müsafir gələli,
İmamların kömək əli
Bizdən uzaqlaşdı yenə...(Vurğun, 2005)

“Xanlar” pyesində Qızyerlərin dilindən verilən nümunələr də el mahnılarından demək olar ki, seçilmirdi. Onun dilindən verilən sözlər toy mərasimlərində oxunan mahnılarla daha çox səsləşməkdədir:

Nə gəlinim var!
Can gözümün işığı!
Evimin yaraşığı.
Sən ol ağız ləzzətim
Dindir qoca aşığı
Kəmər bağla belinə
Şərbət töküm dilinə
Xına qoyum əlimə (Əfəndiyev, 1992).

Xalq yaradıcılığının incilərindən olan mahnıların bir qismi ailə-məişət mövzusuna həsr olunmuşdur. Bu mahnılarda gəlinin tərifi əsas yer tutur. Səməd Vurğun da mahnıların bu növünə xüsusi olaraq müraciət etmişdir. “Vaqif” tarixi dramında Əli bəyin toy mərasimində oxunan nəğmə də xalq mahnısıdır:

Anam, bacım, qız gəlin,
Əl-ayağı düz gəlin,
Yeddi oğul istərəm,
Bircə dənə qız gəlin! (Vurğun, 2005).

Əsrlərdən bəri toylarımızda sevil-sevilə deyilən bu folklor nümunələrini görkəmli ədəbimiz əsərində məharətlə istifadə etmişdir.

Səməd Vurğun poeziyası demək olar ki, başdan ayağa xalqın həyat və mübarizəsi ilə bağlıdır. Sənətkar üçün ən mühümü öz xalqının arzularını, düşüncələrini, istəklərini qələmə almaq, onları əks etdirmək, xalqının adət-ənənəsini gələcək nəsillərə öyrətməkdir. Onun poeziyası xalq yaradıcılığı ilə zəngindir. Milli olmayan, öz xalqına bağlı olmayan sənətkar heç vaxt xəlqi ola bilməz.

Ayaqlaş dövranın sürətilə sən,
Çalış ki, karvandan üzülməyəsən.

Özün yaratsan da bütün varlığı,
Özündə axtarma bəxtiyarlığı.

Elin məclisində ney tut, dilə gəl,
Beşgünlük aləmə gülə-gülə gəl.
Doldur piyaləni haqq şərbətindən,
Sən el bağçasında şur tutub, səs sal.
Elin ciyərilə yalnız nəfəs al (Folk. və ƏT 2017).
Bu nümunələrdə şairin öz vətəninə necə bağlı olduğunu görmək mümkündür.
"İnsan" pyesində gənclərin və qızların dilindən verilən şərqilər əsərə xüsusi rəng verir.
Qara dəniz! Qara dəniz!
Nə gümrahdır dalğaların!
Bizim xöşbəxt vətəimiz,
Timsalıdır ilk baharın.
Ana vətən! ana vətən!
Günəş doğur gülüşündən.

Azad torpaq! Azad vətən!
Nə müqqədəs adın vardır.
Qanlı döyüş günlərindən,
Bu səadət yadigardır.
Ana vətən! ana vətən!
Günəş doğur gülüşündən (Vurğun, 2005)

"Səməd Vurğun yaradıcılığında xalq musiqisi və mahnıların rolu" adlı tədqiqat işində təsviri metoddan istifadə edilmişdir.

**NƏTİCƏ**

Beləliklə, mövzu ilə bağlı fikirlərimizi yekunlaşdırarkən biz Səməd Vurğun yaradıcılığına nəzər yetirdikdə ölməz sənətkarın yaradıcılığında xalq musiqisi və mahnılarının nə qədər önəmli yer tutduğunun şahidi oluruq. Eyni zamanda Səməd Vurğun əsərlərinə bəstəkarlarımızın və musiqiçilərimizin mahnılar bəstələdiyini də nəzərdən qaçırmaq olmaz. Bu baxımdan ədibin "Şəfqət bacısı" əsərini nümunə göstərə bilərik. Bu isə məlum olduğu kimi tamamilə yeni bir araşdırmanın mövzusudur. Gələcəkdə onunla bağlı qənaətlərimizi bildirməyə çalışacağıq.

**ƏDƏBİYYAT:**

1. Abdullayev C. 1976, Səməd Vurğun poetikası. Bakı. "Gənclik". 9.
2. Azərbaycan ədəbiyyat tarixi. Altı cilddə, I cild ( Şifahi xalq ədəbiyyatı), 2004, Bakı, Elm, 201-300
3. Əfəndiyev P. 1992, Səməd Vurğun və xalq yaradıcılığı.B: Yazıçı, 59-74
4. Folklor və yazılı ədəbiyyat. II kitab. 2017, Bakı, "Elm və təhsil", 89
5. Vurğun S. Əsərləri ( beş cilddə), III c., 2005, Bakı, Şərq-Qərb, 57-358

# TƏBİƏT MÖVZUSU: POETİK YANAŞMA

**VƏLİYEVA CEYRAN ELŞƏN QIZI**
Gəncə Dövlət Universiteti
Azərbaycan və dünya ədəbiyyatı kafedrası/doktorant Mingəçevir Dövlət Universiteti/müəllim
*CEYRAN.VALIYEVA@MDU.EDU.AZ*
MINGƏÇEVIR, AZƏRBAYCAN

**XÜLASƏ**

Şeirlərdəki təbiət mövzusu şairlərə yaradıcılıq üçün zəngin və ruhlandırıcı material verir. Şairlər təbiətin gözəlliyini, əzəmətini, sirrini, insanlara və onları əhatə edən dünyaya təsirini çatdırmaq üçün müxtəlif poetik texnika və yanaşmalardan istifadə edirlər. Təbiət tükənməz bir ilham mənbəyidir. Poetik əsərlərdə təbiət obrazı yazıçının məqsədlərindən, metodundan və üslubundan asılı olaraq müxtəlif funksiyaları yerinə yetirir. İlk növbədə qeyd etmək lazımdır ki, təbiət obrazı tarixən ədəbiyyatın inkişafında mühüm yer tutmuş və çoxşaxəli funksiyalarına görə seçilmişdir. Müxtəlif tarixi dövrlərdə təbiət anlayışına müxtəlif mənalar verilmiş, təbiət-cəmiyyət-insan münasibətləri hər bir xalqın düşüncə və dilində özünəməxsusluğuna görə seçilmişdir. Təbiət bizi əhatə edən dünyadır. İnsan təbiətin bir hissəsidir, ona görə də doğulanda onunla tanış olur. İnsan həyatının təbiətin fonunda keçdiyini düşünmək yanlışdır, çünki insanı doğuran təbiətdir. Ona görə də ətrafımızdakı aləmi qiymətləndirmək və onu mənfi təsirlərdən qorumaq lazımdır. Təbiət və insan bir-biri ilə sıx əlaqəli anlayışlardır. Tədqiqat işində şairlərin təbiət mövzusuna müxtəlif yanaşmaları bədii nümunələr əsasında araşdırılacaqdır.

Açar sözlər**:** təbiət və insan, təbiət poeziyada, təbiət və ekologiya

The theme of nature in poetry provides poets with rich and inspiring material for creativity. Poets use various poetic techniques and approaches to convey the beauty, majesty, mystery, and influence of nature on people and the world around them. Nature is an inexhaustible source of inspiration. The image of nature in poetic works performs different functions depending on the goals, method and style of the writer. First of all, it should be noted that the image of nature has historically occupied an important place in the development of literature and was chosen for its diverse functions. Nature poetry is also a clear example of how Citizenship is expressed. In different historical periods, the concept of nature was given different meanings, and the nature-society-human relations were chosen according to their uniqueness in the thinking and language of each nation. Nature is the world around us. Man is a part of nature, so he is familiar with it at birth. It is wrong to think that human life is spent in the background of nature, because it is nature that gives birth to man. Therefore, it is necessary to appreciate the world around us and protect it from negative influences. Nature and man are closely related concepts. In the research work, different approaches of the poets to the theme of nature will be investigated on the basis of artistic examples.

Key words: nature and man, nature in poetry, nature and ecology

## GİRİŞ

Tədqiqat işinin məqsədi təbiət təsvirlərinə müxtəlif yanaşma tərzlərini və onların bədii əsərin ümumi sistemindəki rolunu müəyyən etməkdir. Sənət əsərlərindəki mənzərə təsvirləri bir çox araşdırmaların mövzusudur. Poeziyadaki təbiət mövzusu şairlərə yaradıcılıq üçün zəngin və ruhlandırıcı material verir. Şairlər təbiətin gözəlliyini, əzəmətini, sirrini, insanlara və onları əhatə edən dünyaya təsirini çatdırmaq üçün müxtəlif poetik texnika və yanaşmalara əl atırlar. Müəllifin təbiəti qavrayışı emosional yüklü epitetlərdən - dualı, sevincsiz, qürurlu, şəffaf və hərəkətsiz, inanılmaz və qeyri-müəyyən, heyrətamiz metafora və müqayisələrdən istifadə edərək çatdırılır və bu yazıçının dilini müşahidə etmək üçün də bizə zəngin material verir. Təbiətin gözəlliyi insanın istəyindən asılı olmayaraq mövcuddur, lakin onun şüuruna hər cür təsir edir, ona əbədiyyəti xatırladır.

Tədqiqatın aktuallığı aşağıdakılardan ibarətdir:

Müasir dünya iqlim dəyişikliyi, biomüxtəlifliyin itirilməsi, çirklənmə və təbii ehtiyatların tükənməsi kimi ciddi ekoloji problemlərlə üzləşir. Şairlər təbiət mövzusundan bu məsələlərə diqqəti cəlb etmək və müzakirələrə səbəb olmaq üçün istifadə edirlər.

Təbiətlə əlaqə tapmaq: Texnologiya və şəhər mənzərələri ilə zəngin bir dünyada bir çox insanlar təbiətlə əlaqə qurmağa ehtiyac duyurlar. Şairlər oxuculara bu əlaqəni yaşamağa və təbii dünyanın gözəlliyini və əhəmiyyətini yenidən kəşf etməyə kömək etmək üçün təbiət mövzusuna müraciət edə bilərlər.

Təbiətlə əlaqə tapmaq: Texnologiya və şəhər mənzərələri ilə zəngin bir dünyada bir çox insanlar təbiətlə əlaqə qurmağa ehtiyac duyurlar. Şairlər oxuculara bu əlaqəni yaşamağa və təbii dünyanın gözəlliyini və əhəmiyyətini yenidən kəşf etməyə kömək etmək üçün təbiət mövzusuna müraciət edə bilərlər.

Estetik əhəmiyyət: Şeirdə təbiət həmişə estetik məna daşımışdır. Təbiətin, günəşin doğuşunun, qürubun batmasının, mənzərələrin və təbiət hadisələrinin təsvirləri heyranlıq və ləzzət gətirən rəngarəng və gözəl şəkillər yarada bilər.

Emosional təsir: Təbiət poeziyası oxucularda sakitlik və heyranlıqdan tutmuş melanxolik və narahatlığa qədər geniş emosiyalar oyat bilər. Bu, təbiətlə qarşılıqlı əlaqə ilə əlaqəli hissləri ifadə etməyə və paylaşmağa imkan verir.

Beləliklə, hər zaman poeziyada təbiət mövzusuna müraciət şairlər və oxucular üçün aktual və mənalı olaraq qalır, mədəni dialoqu təşviq edir və təbiətlə əlaqəmizi dərindən dərk etməyə və qiymətləndirməyə kömək edir. Şairlər təbiətdən öz duyğularını və hisslərini ifadə etmək vasitəsi kimi də istifadə edir. O, daxili təcrübələrini çatdırmaq üçün onun gözəlliyini və əzəmətini təsvir edir. Təbiət onun sevgisini, kədərini və ya sevincini ifadə etməsinə çevrilir.

Təbiət haqqında şeir bəşəriyyətin mədəni irsinin bir hissəsidir. Təbiət haqqında bir çox məşhur şeirlər keçmişin böyük şairləri tərəfindən yazılmış və yüksək bədii dəyərə malikdir. Belə şeirləri öyrənmək mədəni irsi qoruyub saxlamağa və gələcək nəsillərə ötürməyə imkan verir. Təbiət poeziyası oxucular üçün ilham mənbəyi və ruhlandırıcı təcrübə ola bilər. Bu, insanlara ətrafdakı, dünyadakı gözəlliyi və harmoniyanı görməyə kömək edir, həmçinin oradakı yerlər haqqında düşünməyə kömək edir. Təbiət şeirləri çox vaxt dünyanı və təbiəti dərk etməyin yeni yollarını təklif edir. Onlar insanlara estetik zövq və ətrafdakı gözəlliyə qarşı həssaslıq inkişaf etdirməyə kömək edir. Təbiət haqqında şeirlər oxucularda həzzdən tutmuş həzinliyə qədər müxtəlif emosiyalar doğura bilər. Bu, insanlara öz hisslərini və duyğularını anlamağa kömək edir və həmçinin emosional təcrübələrini zənginləşdirir. Bəzi təbiət şeirləri ekoloji maarifləndirmə və ətraf mühit problemlərinə diqqəti cəlb etmək məqsədi daşıyır. Bu cür şeirləri öyrənmək insanlara təbiəti qorumağın və ekoloji cəhətdən məsuliyyətli qərarlar qəbul etməyin vacibliyini dərk etməyə kömək edə bilər.

Beləliklə, dövrümüzdə təbiət şeirlərinin tədqiqi həm mədəni irs baxımından, həm də hisslərə, dünyanı dərk etməyə və ətraf mühitin əhəmiyyətini dərk etməyə təsir etmək baxımından öz aktuallığını qoruyub saxlayır.

Təbiət tükənməz bir ilham mənbəyidir. Lirik əsərlərdə o, canlı varlığın xüsusiyyətləri və təcrübələri ilə təchiz edilmişdir. Doğma təbiət poeziyası mənəviləşmiş gözəllik və qüvvət, əzəmət və dərin fəlsəfi məzmun poeziyasıdır. Poetik əsərlərdəki təbiət obrazı yazıçının məqsədlərindən, metodundan və üslubundan asılı olaraq müxtəlif funksiyaları yerinə yetirir. İlk növbədə qeyd etmək lazımdır ki, təbiət obrazı ədəbiyyatın inkişafında tarix boyu mühüm yer tutmuş, lakin onun funksiyaları və mənaları əhəmiyyətli dərəcədə müxtəlif idi. Təbiət insanla dünyanın ruhu arasında ünsiyyət vasitəsi kimi qəbul edilir. İnsanın təbiəti dərk etməsi və təbiətin insana təsiri nəticəsində, insan və təbii ruhların əksi bədii nümunələrə köçürülür. Ədəbiyyatda təbiətin varlığının formaları müxtəlifdir. Bunlar onun qüdrətinin mifoloji təcəssümün, poetik və emosional rəngli mühakimələrin, heyvanların, bitkilərin təsvirləri, onların portretləri və nəhayət, özünəməxsus mənzərələrin, geniş məkanların təsviridir. Təbiətlə şeirin əlaqəsi daimidir. Hər çağın poeziyasında bu universal varlıq olmuşdur. Tarixən təbiət tanrıların məskəni kimi Yunan, Hindistan, Fars ədəbiyyatlarında qeyd olunurdu. İnsan təbiətdə baş verən hadisələrin sirlərini açacaq bir elm axtarırdı. Təbiət həm cazibədar, eyni zamanda dağıdıcı idi. Təbiətin müxtəlif obyektləri tanrı, ilahə kimi təqdim olunur, ilahilər bəstələnirdi.

Poetik nümunələrdəki təbiət təsvirləri bir sıra funksiyaları yerinə yetirə bilər, o cümlədən aşağıdakılar:

- mənzərə, təbii obrazlar personajların hisslərini üzə çıxarmaq vasitəsi kimi xidmət edir;
- mənzərə personajların obrazlarının formalaşmasında iştirak edir;
- landşaft struktur funksiyasını yerinə yetirir, yeri və vaxtı ifadə edir

- əsərdə qeyd olunan hadisələr;
- təbii təsvirlər motivlərə təsir edərək hekayə xəttinin inkişafına kömək edir,
- xarakter xüsusiyyətləri və hərəkətləri.

İnsan nə qədər təbiətə yaxın olarsa, əhval-ruhiyyəsi bir o qədər yüksək olar, təbiətə qayıtmaq insan həyatına inanılmaz gözəlliklər qatar. Təbiətlə bağlılıq onunla ayrılmaz bir vəhtədin tərkib hissəsi olmağın sübutudur. Təbiət və insan hər ikisi həyatın ayrılmaz hissələridir. Təbiətin psixi sağlamlıq üçün də çox güclü təsir vasitəsi olduğunu söyləməliyik. Təbiət həm insanın fiziki, həm də mənəvi sağlamlığının ən düzgün seçilmiş dərmanıdır. Əgər təbiətdən ağılllı istifadə etdilsə, o tükənməz olar. Təbiət insandan, insan isə öz növbəsində təbiətdən asılıdır. Bu qarşılıqlı tandem qorunarsa, insan öz gələcəyini təmin etmiş olar.

Müxtəlif tarixi dövrlərdə təbiət anlayışına fərqli mənalar verilmiş, hər bir xalqın təfəkküründə və dilində təbiət-cəmiyyət-insan münasibətləri özünəməxsusluğu ilə seçilmişdir. Həyatın mövcud olması insanın yaranandan təbiətlə yaxın təmasda olmasından asılıdır. Təbiət lirikası sadəcə sinoptik məlumatlardan ibarət olarsa, onlar insan hisslərinin qabarmasına xidmət edə bilməz. Elə epik əsərlər olur ki, təbiət təsvirlərinə geniş şəkildə yer verilir. Əsəri oxuyan oxucuların bir qismi çox vaxt həmin hissələri ötürür və qeyd edirlər ki, onların oxunması sadəcə vaxt itkisindən başqa bir şey deyil. Ancaq onlar yanılırlar, çünki təbiət təsviri əsərdəki qəhrəmanların daxili aləmi ilə bir başa əlaqəli olur və hadisələrin, qəhrəmanların yaşantılarının, hadisələrə verdiyi reaksiyaların başa düşülməsinə kömək edir. Bəzən şairlər fikirlərinin daha da təsirli və qüvvətli olması üçün çox sadə kəlmələrdən istifadə edərək oxucu qəlbinə təsir etmişlər. Şairlər bu misralarda təbiətin təsvirindən, onun təbiətə vurğun olmasından, təbiəti sevməsindən, ondan zövq, ilham almasından bəhs etmişlər.

Anamsan, dizinə baş qoydum yenə,
Şir qüvvəsi tapdı dizim, ay Laçın,
Sənin bu qıjovlu gur çaylarında,
Qızıl balıqlar tək üzüm, ay Laçın. (Kürdoğlu, 2011)

Vətənini sevən hər bir sənətkar onun dilbər guşələrinin həmvətəndaşları tərəfindən də görülməsini və sevilməsini istəyirdi. Bəzən şairlər təbiətlə danışır, dərdləşirlər. Təbiət poeziyası Vətəndaşlığın ifadə olunduğunun bariz nümunəsidir.

Aç qoynunu, aç meşəm!
Mən sənincün qəribsəmişəm!
Aç qoynunu, aç meşəm!
Söz deməyə gəlmişəm!
Aç qoynunu, əyilim azadə budaqlarına!
Söz deyim qulaqlarına.
Aç qoynunu, aç meşəm!
içim yanır, tənginəfəs olmuşam!
Bir sərinlik həsrətiylə tutulmuşam,
Dolmuşam...(Gün,2019)

Təbiət bizi əhatə edən dünyadır. İnsan təbiətin bir hissəsi olduğu üçün onunla doğulanda tanış olur. İnsan həyatının təbiət fonunda keçdiyini düşünmək yanlışdır, çünki insanı dünyaya gətirən təbiətdir. Buna görə də ətrafımızdakı aləmi qiymətləndirmək, onu mənfi təsirlərdən qorumaq lazımdır. Təbiət və insan bir-biri ilə sıx əlaqəli anlayışlardır. Azərbaycan ədəbiyyatında, xüsusilə, poeziyasında ana təbiət həmişə bəxş edən fiqur, ümid və məhəbbət simvolu olmuşdur. Meşələri və ucsuz-bucaqsız çölləri olan doğma mənzərə - vətənin qüdrətinin təbii ifadəsi - çox vaxt insan həyatında harmoniya və tarazlığı bərpa etməyə qadir olan güclü bərpaedici fiqur kimi təsvir olunur. Azərbaycan şairləri çox vaxt təbiətə mənəvi prizmadan baxır, onda maariflənməyə və harmoniyaya gedən yolu görürdülər. Onların yazıları dürüstlük və təbii dünya ilə harmoniyada olmaq üçün güclü istək nümayiş etdirir və çox vaxt çətin və ağır vaxtlarda sakitləşdirici qüvvədir. Təbiət dünyası qürur və şəxsiyyət mənbəyidir. Sığınacaq yeri, keçmişlə təbiətlə əlaqə quran yer kimi görülür. Yazıçı, şair və tənqidçi prof.Rafiq Yusifoğlu təbiətə belə tərif vermişdir. "Bədii əsərdə təbiət inasın fəaliyyət meydanı və peyzaj kimi canlandırılır. Müvəffəqiyyətli lövhələr həm sənətkarın özünün, həm də qəhrəmanın hiss və həyəcanlarının, əhval-ruhiyyəsinin ifadəsinə çevrilir"(Yusifoğlu, 2004).

Çox vaxt insanlar özləri təbiətə zərər verirlər, buna son qoymaq lazımdır, əks halda insan öz hərəkətlərindən əziyyət çəkəcəkdir. Təbiətin gözəlliyini görməyi bacarmaq lazımdır, yalnız bu halda

insan daha xoşbəxt ola bilər, çünki onu əhatə edən aləm insanın daxili aləminə, onun dünyagörüşünə, həyat tərzinə təsir göstərə bilir. Amma əsas odur ki, təbiətin gözəlliyini görmək yox, konkret hərəkətlərlə ona kömək etmək lazımdır. Hər bir insan təbiəti qoruyub abadlaşdırarsa, o zaman heç kəs düşünməyə məcbur olmaz ki, biz hamımız Yer üzündən yox ola bilərik. Təbiət insan həyatının asılı olduğu bir şeydir, çünki mühit olmasa, insan da olmayacaqdır. Təbiətə xələl gətirən insan özünə ziyan vurur. Bu münasibət insanı əsl evini qorumağa sövq etməlidir, çünki planetimiz insanın doğulduğu yerdir. Təbiəti görmək və qiymətləndirmək deyil, həm də ona sözlə deyil, əməllə kömək etmək lazımdır. Təbiət hər birimizin həyatıdır. Yer üzündəki bütün insanları birləşdirir. Yalnız ətraf aləmə diqqətli münasibət planetimizdə həyatı xilas edəcək. Təbiət haqqında yazılmış əsərlərdə təbiət həqiqətən canlı bir xarakter olaraq, insan arasında olan uyğunlaşma və ya qarşıdurma əsasında yaranır. Müasir dövrdə insanların pulovçuluğu və materialist psixologiyası onu təbiətdən uzaqlaşdırır. Əgər insan öz dincliyini və məmnunluğunu geri qaytarmaq istəyirsə, onu hər zaman qucağını açmağa hazır olan təbiətə qayıtmalıdır. İnsan və təbiət daima vəhdətdədir. Təbiətdə baş verən dəyişikliklər insan orqanizminə də təsirsiz ötüşmür. Hər bir insan bitkilərlə, heyvanlarla-bir sözlə, təbiətlə siqnal bağlılığı var. Çünki insan və təbiət eyni məkanda-Yer kürəsində, eyni enerji sistemində yaşayır. İnsanla təbiət arasında olan bu bağlılıq bədii formalarda, insan düşüncələrinin orijinal əksi formasında özünü göstərir. Ekopoeziya termini ekoloji məsələləri və təbiət ilə əlaqəli mövzulara həsr olunmuş poeziya növünü təsvir edir. Bu, şairlərin təbii dünyanın gözəlliklərini və təhlükələrini vurğulamağa çalışdığı və ətraf mühit, ekosistemlər və sürətli dəyişikliklər kimi məsələlərlə bağlı düşüncə və hisslərini ifadə etdikləri bir poeziya formadır. Ekopoeziya əsasənə, 20-ci əsrin ortalarından yayılmış və populyarlaşmışdır. Bu dövrdə insanların çevrəmizin və təbii dünyanın qorunması və qeyri-insani təsirinə nail olmağa daha çox marağının artması ilə birgə, şairlər insanın təbiətlə əlaqələrini də vurğulamağa çalışmışlar.

Doğma diyarın mənzərələri, axar suları, bərəkətli çayları və gölləri qızıl dənənin sünbül olduğu dərələr, meşələr və dağlar- təbiət Azərbaycan ədəbiyyatında tükənməz gözəllik, ilham mənbəyi, vasitə kimi qəbul edilir, fərdin və cəmiyyətin harmonizasiyası funksiyasını yerinə yetirir. Təbiət təsvirləri ədəbi qəhrəmanların və bütöv xalqların taleyi ilə birləşir. Xalqın, millətin təbiəti və həyatı təbii obrazlar vasitəsilə həyatın qaynaşması əsasında xalq həyatının poetikləşdirilməsi vasitəsinə xidmət edə bilər. Beləliklə, aparılan təhlillər əsasında belə qənaətə gəlmək olar ki, təbiət-peyzaj ədəbi əsərlərdəki eskizlər öz tarixinin uzun bir inkişaf yolunu keçmişdir.

Ocvuma da baxdım,
Bir xəzələ də,
Damarlar, cizgilər nə qədər oxşar.
Bizdən ayrı deyil bircə gilə də,
Ovcumun içində bir payız yaşar. (Yaqub, 2014)

Musa Yaqub hər zaman bizi əhatə edən təbiəti şüurlu hesab edərək, öz məxfiliyini daxilində qoruyub saxlayan bir mövcudat kimi təqdim etmişdir.

Milli ədəbiyyatda mənzərələr yalnız bir fona çevrilmir əsərin hadisələri, hadisələrin tam iştirakçısı, səciyyələndirmə vasitəsidir, personajlar, onların hərəkətlərinə təsir, hərəkətlərinin motivləri funksiyasını yerinə yetirir. Təbii təsvirlər ümumi ideoloji mənaya daxil edilir və əsərin tonal təsvirinə təsir edir.

Günəşdən tez oyanıb gəzirəm öz bağımda,
Nələr, nələr bitməyir bu ana torpağımda!
Ağaclar min dil töküb sanki mənə gəl, deyir,
Gəl, gəl, olmasın bizə ot-alaq əngəl, deyir.( Rüstəm, 2005).

**TƏDQİQAT METODU**

Tədqiqat işində mövzunun öyrənilməsi, bədii mətnlərin saf-çürük edilməsi və problemin həlli istiqamətində müzakirəyə çıxarılan məsələlərin və milli ədəbiyyat nümunələrinin qarşılaşdırmalı təhlili zamanı müqayisəli-tarixi və analitik metodlardan istifadə edilmişdir. Bu zaman tədqiqata cəlb edilən faktlar, nəzəri məlumatlar və bədii mətnlərin öyrənilməsində sistemli təhlil və şərh üslubları əsas götürülmüşdür.

**NƏTİCƏ**

Müxtəlif ədəbi dövrlərdə təbiətə müraciət cəmiyyətin qavrayış və dəyərlərindəki dəyişiklikləri, poetik və bədii üslubların təkamülünü əks etdirir. Təbiətdə müraciət zamanla düşüncələrin, dəyərlərin və bədii yanaşmaların təkamülünü, habelə mədəni, sosial və fəlsəfi amillərin poetik yaradıcılığa təsirini əks etdirir. Beləliklə, poeziyada təbiətə müraciət zaman keçdikcə çoxlu amillərdən, o cümlədən mədəniyyətdəki, cəmiyyətdəki dəyişikliklərdən, təbiətin dərk edilməsindən və ədəbi cərəyanların inkişafından asılı olaraq dəyişə bilər. Təbiət mövzusu ilham və emosional təsir mənbələrinə malik olsa da, onun poeziyadakı aktuallığı yuxarıda təsvir olunan müxtəlif amillərdən asılı olaraq dəyişə bilər. Bununla belə, təbiət mərkəzi mövzu olmasa da, onun təsvirləri və simvolları, çox güman ki, şairlər tərəfindən uzun illər öz yaradıcılığında istifadə edilməyə davam edəcəkdir.

**ƏDƏBİYYAT SİYAHISI**

1. Hüseyn, K (2011) Seçilmiş əsərləri. səh. 65.
2. Nurəngiz, G (2019) Seçilmiş əsərləri. səh. 122.
3. Rafiq, Y (2001) Ədəbiyyatşünaslığın əsasları, 89.
4. Rüstəm, S (2005) Seçilmiş əsərləri, səh.73.

# ATALAR SÖZLƏRİNDƏ MIQDAR SAYLARININ ÜSLUBI MƏQAMLARININ TƏDQIQI

**ƏFRANƏ HƏSƏNLİ**
BDU QAZAX filialı
Filologiya/Azərbaycan
*efrane.hesenova96@gmail.com*
QAZAX, AZƏRBAYCAN

**XÜLASƏ**

Dildə sayların miqdarı dilimizdəki digər nitq hissələrinə nisbətən xeyli azdır. Azərbaycan dilindəki saylarım nitq vahidləri kimi müxtəlif məqalarda, rəngarəng mənalarda, ekspressivlik-emoionallıq çalarlıqlarında işlədilməsi faktları, müxtəlif üslublarda məqsədəuyğun istifadə nümunələri sübut edir ki, digər nitq hissələri kimi, sayların da üsıubi imkanları mövcuddur. Saylar uzun inkişaf prosesində bir sıra dolaşıqlıqlardan keçmiş və dilin qrammatikasında mürəkkəb mücərrəd məna almışdır. Sayların bir çoxunun mənşəyi elmi ədəbiyyatda tədqiq edilməmişdir. Tək və cəm sayların leksik təbiəti onlardan üslubi məqsədlə istifadə etmək üçün şərait yaradır. Kəmiyyət formalarının əmələ gəlməsi və istifadəsi hər bir konkret şəraitdə qrammatik və üslubi cəhətdən əsaslandırılmalıdır.

**AÇAR SÖZLƏR: say, üslub, bir**
**KEY WORDS**:**numeral, stylistic, one**

## GIRIŞ

Azərbaycan şifahi xalq ədəbiyyatının ən geniş yayılmış və xalqımız tərəfindən sevilə-sevilə qorunaraq günümüzə gəlib çatan növlərindən biri də atalar sözləridir. Atalar sözləri xalqın həyat və məişəti, əmək fəaliyyəti ilə daha sıx bağlı olan, formaca kiçik, mənaca geniş janrlardan biridir. Atalar sözlərində xalq hikməti, xalq zəkası, xalqın əsrlərdən bəri əldə etdiyi sınaq və təcrübələrin nəticələri ümumiləşdirilir. Atalar sözləri dildə, danışıqda, yaradıcılıqda və ümumiyyətlə həyatda tez- tez müraciət edilən folklor janrlarındandır. Şifahi xalq ədəbiyyatının digər janrları kimi atalar sözləri də orta əsrlərin bir sıra əlyazmalarında, qədim türk yazılı abidələrində qalmışdır.

H. Zeynallı yazır ki, "Divanü Lüğat-it Türk"də olan 266 atalar sözünü Nəcib Asim İstanbul universiteti ədəbiyyat fakültəsinin məcmuəsində dərc etdirmişdir: "Lüğət"dəki atalar sözlərindən bir

neçəsi: "Tağ tağa qovuşmaz, kişi kişiyə qovuşar ", "Avçi necə al bilsə, adıq ancaq yol bilir " və s. "Kitabi-Dədə Qorqud" un ilk tədqiqatçılarından olan alman şərqşünası F. Dits Drezden əlyazmasından götürüb 420 atalar sözləri nəşr etdirmişdir. XV əsr türk tarixçisi Yazıçıoğlu Əlinin "Səlcuqnamə" əsərində də türk atalar sözləri vardır (Əfəndiyev,2013).

Atalar sözləri hələ çox qədim zamanlardan başlayaraq yazılı ədəbiyyatımızın görkəmli nümayəndələrinin diqqətini cəlb etmişdir. Qətran Təbrizi, Nizami Gəncəvi, Əfzələddin Xaqani, Şah İsmayıl Xətai, Məhəmməd Füzuli və başqa sənətkarların əsərlərində bu və ya digər dərəcədə külli miqdarda Azərbaycan atalar sözləri və məsəlləri işlənmişdir.

Qətran Təbrizi: Ömür boyu kimsəni bir dəfə ilan sancsa, daim ala çatı onun gözlərinə ilan görünər; Günəşi palçıqla suvamaq olmaz; Sən yaxşılıq edib dənizə at, balıq bilməz, xalıq bilər.

Əfzələddin Xaqani: Dağ dağa qovuşmaz, qovuşar adamlar; Bu gün bağışladığını sabah geri alma; Dünyada nə qədər əbləh adam var, özünə çox yüksək məqam arzular.

Nizami Gəncəvi: Axtaran tapar ; Doşab almışam, bal çıxıb ; Hər kəsin tüstüsü öz bacasından düz çıxar; Ev oğrusunu tutmaq olmaz və s. (Əfəndiyev,2013).

Azərbaycan atalar sözlərinin folklorşünaslıq - ədəbiyyat baxımından tədrisi ilə yanaşı, onların dilçilik baxımından müxtəlif aspektdən öyrənilməsi də böyük maraq doğurur.

Azərbaycan atalar sözlərində işlənən sayların semantik və struktur sistemi, onların üslubi imkanları diqqəti cəlb edir. Azərbaycan atalar sözlərindəki sayları struktur baxımından nəzərdən keçirsək, burada quruluşca daha çox sadə sayların işləndiyi nəzərə çarpır. İşlənmə tezliyinə görə isə saylardan ən çox istifadə olunanı bir, iki, qırx, yüz, min, az və çox saylarıdır. Paremik vahidlərin tərkibində sıra saylarına rast gəlinməmişdir. Mürəkkəb saylar isə sadə saylara nisbətən az işlənmişdir. Azərbaycan dilində say bir sistem kimi xüsusi yer tutur. Saylar geniş mənada kəmiyyət anlayışı ifadə edir. Kəmiyyət anlayışının, say məfhumunun ifadəsi bir sıra məsələlərlə bağlıdır. Saylar da kəmiyyət kateqoriyası kimi insanın praktik, həyati ehtiyaclarından yaranmışdır. Dünyanın müxtəlif xalqlarının dövrümüzə gəlib çıxmış abidələrində-qəbir daşlarında, pul üzərində, daş-qaşlar üzərində, müxtəlif qayaüstü rəsmlərdə və s. insanların say, kəmiyyət anlayışını ifadə edən müxtəlif elementlərə rast gəlinib. Məlum olur ki, insanlar yüz min il, bəlkə daha da əvvəl saymağa başlamışlar. Müasir say sistemindən əsaslı şəkildə fərqlənən bu saylar, onların işlənmə prinsipləri insanların ilkin riyazi təfəkkürü ilə bağlı olmuşdur. Güman olunur ki, ilkin saylar "bir" və "iki" olmuşdur. Bundan artıq kəmiyyəti ifadə etmək üçün isə sadəcə olaraq "çox" sözündən istifadə olunmuşdur. Daha sonra insanlar tədricən beşə qədər saymış, iki beşi birləşdirərək də ona kimi hesablaya bilmişlər. Bu ədə anlayışlarının, say məfhumunun yaranmasında isə insanın əli və hər əlindəki beş barmağı misilsiz rol oynamışdır. Şübhəsiz ki, kəmiyyət anlayışının, sayların tarixi yalnız riyaziyyatla deyil, dil ilə də bağlıdır. Riyaziyyat elmi sayların toplanması, çıxılması, vurulması və bölünməsi və s. kimi əməliyyatları öyrənirsə, dilçilik say anlayışının dildəki ifadəsini, onun qrammatik, leksik - semantik xüsusiyyətlərini araşdırır. Azərbaycan dilində kəmiyyət anlayışını ifadə etmək üçün birdən trilyona qədər bütün ədədləri adlandırmaq üçün dilimizin lüğət fonduna daxil olan iyirmi üç müxtəlif sözdən istifadə olunur. Bunlar aşağıdakılardır: Bir, iki, üç, dörd, beş, altı, yeddi, səkkiz, doqquz, on, iyirmi, otuz, qırx, əlli, altmış, yetmiş, səksən (həştad), doxsan, yüz, min, milyon, milyard, trilyon. Trilyona qədər olan qalan bütün ədədlərin adları isə bu iyirmi üç sözdən düzəldilir. Az sözlə -23 sözlə çox böyük miqdarda say sistemi düzəldilir və müxtəlif kəmiyyət anlayışları ifadə olunur. Məsələn: on beş, iyirmi altı, yüz doxsan doqquz, yeddi yüz səksən altı, min doqquz yüz doxsan beş, bir milyon altmış səkkiz min yüz əlli iki və s. Qeyd etdiyimiz iyirmi üç saydan yalnız üçü ( milyon, milyard və trilyon) Avropa mənşəli, qalan iyirmisi isə türk mənşəli olub, dilimizin qədim sözlərindəndir.

Türk dillərində vaxtilə say mənasında işlənən, ancaq müasir dilimizdə arxaik sözlər qrupuna keçən " tümən " sözü olmuşdur. Bu söz monqol mənşəli söz olub on min və daha artıq kəmiyyəti bildirmək üçün istifadə olunur. Bu söz Azərbaycan dilində on min mənasında da işlənildiyi kimi, on manat mənasında da özünə yer tapmışdır. Azərbaycan atalar sözlərində də bu sözə bir neçə nümunədə təsadüf olunmuşdur :

Qazan daşanda çömçənin biri bir tümənə gedər
sənə qurbandır, amma çəpişin biri bir tümənə(Bəydilli,2004).

Sayların mənşəyi də diqqəti cəlb edən məsələlərdəndir. Dilimizdə onluq say sistemində altmışa qədər heç bir xüsusi qayda nəzərə çarpmır. On, iyirmi, otuz, qırx, əlli sayları fonetik cəhətdən bir-birindən tam fərqlənir və heç bir sistemə tabe deyil. Daha sonra gələn altmış, yetmiş saylarının isə -

mış, -miş şəkilçilərinin köməyilə eyni qayda üzrə qurulduğu nəzərə çarpır. Lakin bu qayda sonra gələn səksən, doxsan saylarında pozulur. Səksən, doxsan sayları da başqa bir qayda ilə -san, -sən şəkilçilərinin köməyilə ilə düzəlmişdir. "Səksən sayı Azərbaycanın İran sərhədlərindən uzaqda, fars dili təsirinə az məruz qalan yerlərdə qorunub saxlanmışdır. Bu xüsusiyyətini bugün Azərbaycanın şimal və cənub qrupu dialektlərində müşahidə edirik. Fars dili təsirinə məruz qalmış və öz dövrünə görə az- çox ticarət mərkəzi olan yerlərdə isə həştad sözü daha çox yayılmış, həm danışıq, həm də ədəbi yazı dilində bir söz kimi işlədilmişdir. Azərbaycanın Şərq və cənub qrupu dialektlərində bugün də həştad sözü həyatiliyini göstərir (Mirzəzadə,1962).

Mətbuat, bədii əsərlər, dərsliklər, radio və televiziya verilişləri göstərir ki, üstünlük səksən sözünə verilir və ədəbi dil baxımından bu söz daha düzgün hesab olunur. Səksən sözünün tərkibində səkkiz və on sözlərinin əlamətlərinin olması sübut edir ki, ədəbi dildə səksən sözünün işlənməsi daha məqsədəuyğundur.

Azərbaycan atalar sözlərində bu paralellərdən səksən sayı işlənmişdir.

Səksən, doxsan, bir gün yoxsan (Bəydilli,2004).

Dildə ümumiyyətlə, kəmiyyət, miqdar anlayışını ifadə edən sözlər də vardır ki, bunlar say adlanan nitq hissəsini təşkil edir. Əslində belə sözlərin miqdarı dilimizdəki digər nitq hissələrinə - isimlərə, sifətlərə, feillərə mənsub olan sözlərin miqdarından xeyli azdır; lakin bu az miqdarda olan sözlərin ifadə etdiyi kəmiyyət son dərəcə çoxdur. Əlbəttə, müxtəlif miqdar anlayışını ifadə etmək üçün bu məhdud miqdarda olan sözlərdən xüsusi qrammatik vasitə və qaydalar əsasında geniş dairədə istifadə olunur. Bəzən belə düşünürlər ki, saylar ümumiyyətlə, konkret miqdarı bildirən sözlərdir və bu növ sözlərin heç bir əlavə məna rəngi, ekspressiv çalarlığı ola bilməz. Belə sözlər, əsasən, riyazi vahidlərin ifadəçiləri olaraq elmi üslub ünsürləridir və ümumi danışıqda, yaxud başqa hər hansı bir üslubda da belə işlədilir. Deməli, sayların üslubi imkanları olmadığı kimi, üslubi məqam və çalarlıqları da yoxdur. Buna görə də üslubiyyatda xüsusi olaraq saylardan bəhs açmaq da zəruri deyildir. Bu fikirləri əsas götürən bir sıra dilçi və ya ədəbiyyatçı - üslubiyyatçılar zahirən doğruya oxşayan belə mülahizələrə üstünlük verdiklərinə görə yazdıqları üslubiyyat və poetika kitablarında da sayların üslubi məna və məqamlarından xüsusi olaraq bəhs etməmişlər. Sayların müxtəlif üslubi məqam və çalarlıqlarını "Azərbaycan Atalar sözləri"ndə izləyək.

I.Saylar içərisində, demək olar ki, ən çox üslubi məqam və çalarlıqlarda işlənən vahid bir sayıdır. Müasir Azərbaycan dilində bir sayının başlıca olaraq aşağıdakı üslubi məqam və çalarlıqları vardır:

1. Azərbaycan dilində bir sözü hər şeydən əvvəl sayların ilk vahididir. Həmçinin bu zaman bir sözü əşyanın konkret kəmiyyətini, miqdarını bildirməyə xidmət edir.

Bir sayı əsas mənasına uyğun olaraq miqdar bildirir; riyaziyyatda və ümumiyyətlə, elmi üslubda heç bir ekspressiv çalarlıq bildirmədən mütləq ədəd olaraq təklikdə, ya da hər hansı bir əşyanın miqdar təyini kimi hər cür üslubi sahədə isimlə yanaşı işlənir.

Aclıq bir il gedər, minnət min il
Allah bir, söz bir .
Ata oğluna bir bağ verdi, oğul ataya bir salxım qıymadı.
Bir ayaq sən gəl ki, iki ayaq mən gəlim
Bir buğda əkməsən, min buğda biçməzsən
Bir çılpağı yüz cübbəli soya bilməz
Bir dana bir naxırı korlar
Bir daşla divar olmaz
Bir əldə iki qarpız tutmaq olmaz
Bir göz iki gözün gördüyün görə bilməz
Bir gül ilə bahar olmaz
Bir igidin payı iki igidi ac qoyar (Bəydilli,2004).

2. Bir sözü birinci növ təyini söz birləşməsinin tərəfləri arasında işlənərkən öz əsas mənasını itirərək qeyri-müəyyənlik bildirir. Bu zaman təyinin mənasını qüvvətləndirərək, əşyanın təyinlik dərəcəsini artırır. Beləliklə də qeyri-müəyyənlik və ümumilik məzmunu yaradır. Dilimizdə bir sözünün bu məqamda işlənməsinə daha çox rast gəlinir :

Bir ağıllı baş min başı saxlar
Bir çuval qızıl borcun olsun, bir çuval buğda borcun olmasın

Dost məni ansın bir çürük qozla
Dost məni yad eyləsin bir güleyşə nar ilə
Keçəl qızın nəyi var, dəmirdən bir darağı (Bəydilli,2004)

3. Bir sözü heç bir şəkilçi qəbul etmədən eyni sözünə - əvəzliyinə yaxın bir mənada işlənir. Bu zaman bəzən iş, hərəkətin eyni yerdə icrasını, bəzən də əşyaların bir - birinə oxşarlığını, bir - biri ilə eyni olduğunu bildirir:

Atlı ilə atsız bir deyil
Barmağın hansını kəssən, ağrısı birdir
Başını keçəl eləmə; hər keçəlin taleyi bir olmaz
Bir ağacda gül də bitər, tikan da
Bir küllükdə iki xoruz banlamaz
Bir qazanda iki kəllə qaynanam (Bəydilli,2004)

4. Bir sayı əlamətcə təyin etmək, həm də çoxaltma, gücləndirmək çalarlığı ifadə etmək üçün isimlərin yanında işlənir:

Ağzımı bir aş yandırsın aş ola;
başımı bir daş yarsın ki, daş ola

5. Bir sözü "də" bağlayıcısı ilə işlənərək iş, hal və hərəkətin ikinci dəfə, yenidən icra olunmasını bildirir:

Arxa su gəlib, güman var bir də gəlsin
Bir almağın bir verməyi də var
Bir də gəlin ollam, oturduğumu, durduğumu billəm
Bir də qatırçının qatırın hürkütmə
Bir gördün namərdi, bir də görsən namərdsən (Bəydilli,2004)

Bir sözü ədatla sinonimlik təşkil edərək, əsasən, təkid, qəzəb, təəccüb, arzu və xahiş və s. mənalar ifadə edir.

Bir arxa ki su gəlib, güman var bir də gələ
Bir çıraq ki haqdan yana, yağı neylər, yağı neylər?!
Bir çulum var ataram, harda gəldi yataram
Bir doğru ki yalana oxşadı, onu söyləmə (Bəydilli,2004)

7. Bir, bir də sözləri bağlayıcı yerində işlənərək, əsasən, həm, həm də, bəzən də gah, gah da bağlayıcılarının mənasına uyğun gəlir və əlavə bölgü bildirir.

Bir ac güləyən olar, bir də yalavac
Bir ac qudurğan olar, bir də yalavac
Bir biləndən qorx, biləndən qorx, bir də bilməzdən (Bəydilli,2004)

Bir sözü müxtəlif şəkilçi və sözlərlə işlənərək dilimizdə söz yaradıcılığında mühüm rol oynayır. Həmin sözün vasitəsilə müxtəlif mənalı düzəltmə və mürəkkəb sözlər, eyni zamanda ifadələr yaranır. Məsələn : Birlik, bircə, birər, birdən, birgə, birinci, birləşmək, bildir qapıbir, canbir, dənəbir, arabir, birbaş, minbir, əlbirlik, biraylıq, birdəfəlik, birgəlik, biryolluq, birmənalı, birhüceyrəli, canbirqəlb, birbəbir, hərdənbir, hərdən -birdən, bir-bir, bircə - bircə, birər -birər, birdən -birə, iki - bir, üç - bir, birə - yüz, birə -min, bir-iki, bir sıra, bir çox, bir az, bir qədər, bir neçə, bu biri, o biri, hər biri, hər bir və s. (Xəlilov,1978)].

Arif olana bircə işarə də bəsdir
Bildir ölüb boz eşşək, bu gəlin ağlayaq
Bildir yedim bir incir, indi də qarnım incir
Birlik harada, dirilik orada
Birlik olmayan yerdə dirilik olmaz( Bəydilli,2004)

II. Miqdar saylarının hamısı bütün üslublarda işlənir, lakin elmi üslubda daha çox mücərrəd miqdar adları kimi işlənir. Miqdar saylarının bir sıra xüsusiyyətləri vardır ki, sayların üslubi məqamlarını qismən zənginləşdirir və çox əlverişli vasitələr kimi müxtəlif çalarlıqda istifadə edilir. Bunlardan başlıcası aşağıdakılardır :

1. Müəyyən miqdar dairəsində mübaliğəli çalarlıqda qeyri-müəyyənlik ifadəsi üçün, xüsusən yüz, min və milyon saylarından aşağıdakı qaydalarda istifadə olunur. Bu yuvarlaq saylar xüsusi intonasiya ilə təyin vəzifəsində işlənir. Lakin sayın bildirdiyi dəqiq miqdarı yox, həmin miqdara yaxın

- bir qədər az və ya bir qədər çox miqdarı bir az mübaliğə çalarlığı ilə ifadə edir. Məsələn; Adam min acını unudar, bir şirinin xatirinə

Bir dirhəm min eybi örtər .

Bir qulğuna min qırğına səbəbdir (Bəydilli,2004)

2. Miqdar sayları bütün hal, nisbət, şəxs və xəbər şəkilçilərini qəbul edərək müxtəlif üslubi imkanlar kəsb edir və cümlədə müxtəlif üzvlər vəzifəsində işlənir. Bu da sayların substantivləşməsi prosesidir ki, atalar sözlərində da belə saylara kifayət qədər rast gəlinir.

**TƏDQIQAT METODU**

Azərbaycan atalar sözlərini tədqiq edərkən, əsasən, təsviri metoddan istifadə olunmuşdur

**NƏTICƏ**

Azərbaycan dilindəki sayların nitq vahidləri kimi müxtəlif məqamlarda, rəngarəng mənalarda, ekspressivlik -emosionallıq çakarlıqlarında işlədilməsi faktları, müxtəlif üslublarda məqsədəuyğun istifadə nümunələri sübut edir ki, digər nitq hissələri kimi sayların da üslubi imkanları mövcuddur və bu imkanların məqdadəuyğunluq nöqteyi-nəzərindən əlverişli üslubi məqam və çalarlıqlar üçün istifadə olunur. Buna görə də sayların üslubi imkanlarından və çalarlıq məqamlardan ayrıca bəhs edilməlidir. Sayların da üslubi imkan, məqam və çalarlıqları, digər nitq hissələrində olduğu kimi, sinonimlik, emosionallıq-ekspressivlik və üslubi təhkimlik kimi başlıca üç cəhətlə bağlıdır və bu cəhətlər də bir - biri ilə üzvi surətdə bağlıdır. Buna görə də hər hansı sayın üslubi imkan, məqam və çalarlıqları məhz bu cəhətlərlə bağlı surətdə nəzərdən keçirilməlidir. .

**ƏDƏBIYYAT SIYAHISI**

1.Atalar sözü/ tərtib edəni C.Bəydilli. Bakı, Öndər nəşriyyatı, 263 s.(27-240). 2.Əfəndiyev, P.(2013) Azərbaycan şifahi xalq ədəbiyyatı, Bakı, (134). 3.Əhmədova,X.S. (2011)Müxtəlif sistemli dillərdə atalar sözlərinin linqvistik təhlili və tərcümə məsələləri, dis. Bakı,. 4.Xəlilov, R.Y.(1978) Saylar, Bakı, (24). 5.Mirzəzadə, H.(1962) Azərbaycan dilinin tarixi morfologiyası, Bakı, (26-29).

# İSMAYIL ŞIXLININ "ÖLƏN DÜNYAM" ROMANINDA AZƏRBAYCAN MÜƏLLİMLƏRİNİN QARANLIQ VƏ FACİƏLİ TALEYİ

**Fərəcova Sərvanə**
Bakı Slavyan Universiteti
*Ədəbiyyatşünaslıq*
*(ədəbiyyat nəzəriyyəsi)*
ferecli404@gmail.com
*Azərbaycan, Bakı*

**Xülasə**

Məqalədə əsas diqqət İsmayıl Şıxlının "Ölən dünyam" romanında Halay bəy, Mürsəl müəllim, Firudin bəy Köçərli kimi vicdanlı və əqidəli müəllimlərin qaranlıq taleləri üzərinə yönəldilib. Romanla tanış olarkən, görürük ki, ziyalılarımızın taleyi qara gəlir, inqilab hadisələri maarifçilik ideyalarını yarımçıq saxlayır, onların idealları və arzuları puç olur. Əsərin əsas mövzularından biri maarifçiliyin tarixi faciəsinin təsviri idi. İsmayıl Şıxlı Qazaxın Qaymaqlı kəndinin psixologiyasını bir neçə detallarla göstərmiş, konkret hadisələri əsərin sujet xəttinə daxil edərək, baş verən hadisələri nəzərdən qaçırmamışdır. Yazıçı oxucuda kəndin mədəni inkişaf məsələləri, təhsil həyatı, ictimai-siyasi mənzərəsi ilə bağlı yaşlı uçitel və gənc Mürsəl müəllimin vasitəsilə təsəvvür yaratmışdır. Romanda

maarifçiliyin deqredasiyası, müəllimlərin faciələrinin işıqlandırılması tədqiqatın əsas obyekti kimi götürülmüşdür.

**Açar sözlər:** *maarif, savadsızlıq, elm*

## IN THE NOVEL "OLAN DUNYAM" BY ISMAYIL SHIKHLI DARK AND TRAGIC FATE OF AZERBAIJAN TEACHERS

### ABSTRACT

In the article, the main attention is focused on the dark fates of conscientious and faithful teachers such as Halay bey, Mursal teacher, Firudin bey Kocherli in Ismayil Shikhli's novel "My Dying World". While getting acquainted with the novel, we see that the fate of our intellectuals is bleak, revolutionary events keep the ideas of enlightenment unfinished, and their ideals and dreams come to naught. One of the main themes of the work was the description of the historical tragedy of the Enlightenment. Ismayil Shikhli showed the psychology of Qaymagli village of Gazakh in several details, he included specific events in the subject line of the work and did not ignore the happenings. The writer created an idea in the reader about the issues of cultural development, educational life, socio-political landscape of the village through the old Uchitel and the young teacher Mursal. In the novel, the degradation of education, highlighting the tragedies of teachers is taken as the main object of research.

**Key words*:*** *education, illiteracy, science*

İsmayıl Şıxlının “Ölən dünyam” romanında elm və maarifçiliyi təbliğ edən, həyatları keşməkeşli və ağır keçən qəhrəmanlarımızın faciəvi taleyi əks olunub. Müəllif inqilab və repressiya illərində milli maarifçilik ideyalarının boşa çıxmasını ziyalılarımızın təsvirində realizə edir. Romanın vicdanlı obrazlarından biri olan Yoldaş Kəsəmənli Halay bəylə görüşüb onun nə üçün qaçaq həyatı yaşadığını öyrənmək istəyirdi. Onların baş tutan görüşündə Halay bəy rəhbərin altı şərtinin olduğunu vurğuladı və bildirdi ki, köhnə ziyalılar müvəqqətidir,yeni kadrlar yetişdiriləndə köhnələr uzaqlaşdırılacaq. Halay bəy Kəsəmənlinin sinif yoldaşı idi, Qori müəllimlər seminariyasını bitirmişdi, riyaziyyat müəllimi işləyirdi. Tələbələr arasında ona “Riyaziyyatın Allahı” deyirdilər. Halay bəyi yığıncaqlarda o qədər sıxışdırırlar ki, o da dağlara üz tutur, qaçaqların dəstəsinə qoşulur.

Halay bəy müəllimlik fəaliyyətində tələbələrdən hörmətsizlik görmüş, bu cür təzyiqlərə tab gətirə bilməyib qaçaq həyatını seçmişdi. Qolçomaqların sinif kimi ləğv olunması planı, tələbələrin rəhbərin altı şərtindən istifadə edərək, ayaqlarının yer alması Halay bəyi qorxudurdu. Kəsəmənli isə müəllimə təsəlli verir, onu seminariyaya müdir təyin etmək istəyirdi. Belə savadlı, təcrübəli müəllimin ömrünü dağlarda, daşlarda puç etməsi Kəsəmənliyə ağır gəlirdi, amma tək əldən səs çıxardımı? Halay bəy dünyagörmüş, müdrik adam idi. İti də tanıyırdı, qurdu da. Onun bu yaşında qaçaq həyatı yaşaması çətin idi. Halay bəy seçim qarşısında qalmışdı. Ya ortaya çıxacaqdı, ya da dəstəsi ilə Arazın o tayına keçəcəkdi, amma sən saydığını say, gör fələk nə sayır. Halay bəy taleyin oyunu qarşısında məğlub oldu. Ələ keçən Halay bəyi evindən götürüb qalaya gətirdilər.

Məhbuslarda daha çox müşahidə olunan xronofobiya (“zindan nevrozu”) anlayışı var. Həmin situasiyada məhbusların səyyar xəyal dünyası, təxəyyül gücü sərhədsiz olur. Halay bəydə olduğu kimi. Ətrafdakı hər şey sanki canlanır. İlk başda hər şey sakit görünsə də gecə yarısı onu qaladan apardılar. Məhbuslar bilirdilər ki, bu vaxt paltar-palazla aparılan məhbus ya Sibirə sürgün olunur, ya da güllələnir. Nəticə etibarilə məhbusu hər iki halda ölüm gözləyir, sadəcə biri asan ölümdür, digəri çətin. Halay bəy ziddiyyətlərlə dolu tarixi dövrün qurbanı idi. Halay bəyin alnına asan ölüm yazılmışdı, belə bir qismət onu da gözləyirdi. O, gözlərini bu amansız və ədalətsiz həyata yumarkən, bir-biri ilə ünsiyyətdə olan quşların məhzun səsini eşitdi. Bəlkə də Halay bəyin ölümü ömrünün son günlərini yaşayan müəllifin ahıl çağlarındakı ölüm haqqında düşüncələridir. Halay bəyə Tanrı tərəfindən göndərilən ömür adlı kitabın son səhifələri, Halay bəyin yarımçıq arzuları bu səslə tamamlandı...Atəş!

Məqaləni yazarkən yazıçının oğlu jurnalist Elçin Şıxlı ilə həmsöhbət olduq. Elçin Şıxlı Halay bəy obrazı haqqında qeyd edir ki, Halay bəy Şıxlinski atasının qohumlarındandır, müəllifin dayıları ilə birlikdə 30-cu illərdə Türkiyəyə mühacirət edib. Romanda onun adından istifadə olunub, amma tale onun taleyi deyil, yəni onu güllələməyiblər. Onun dayılarından biri olan Şəmistan ailəsini götürüb Ermənistana qaçmışdı. Sonradan onlar orada Cahandarov soyadını götürüb yaşayırdılar. Bir qismi isə Zaqatala və Balakənə sürgün edilmişdi. Onlar ona görə sağ qalıblar.

Halay bəyin taleyi bir başqa oldu. Kabı dayı bəlkə də onu çağırmasa, o ölməzdi. Halay bəy Firudin bəy Köçərlinin proobrazıdır. Əslində, o obraz Firudin bəyin təxmini taleyidir. Kəsəmənli haqsız yerə dama salınanlara, güllələnmə hökmü verilənlərə qarşı çıxış yolu axtarır, bu işə qol qoyanlarla, xüsusilə də Fətullayevlə (tarixçi, dosent Əzizə Nəzərlinin fikrincə, Fətullayev obrazı inqilabçı Teymur Əliyevin prototipidir) tez-tez toqquşmalı olur. Zalım, qəddar Fətullayev hər yerdə, hər insanın simasında "sinfi düşmən" axtarır, kimi görsə, "müzür-ünsür", yəni ziyanlı, təhlükəli şəxs hesab edirdi. O, qəzaya təhkim olunmuş "Çeka" nümayəndəsi idi. Onun qurbanlarından biri də "Ölən dünyam" romanında adı çəkilən Firudin bəy Köçərli idi. Ola bilsin ki, həmin məqamda Troykanın tərkibində erməni olsun, amma Köçərlini aradan götürdülər, çünki o, güclü adam idi, Qori müəllimlər seminariyasının müsəlman şöbəsini gətirib Qazaxda açmışdı, bölgədə maarif çırağı yandırmışdı.

Firudin bəy Köçərli əsərdə qeyd olunduğu kimi Musavat partiyasına üzv olmaqda, Pristav Xan-Xoyskinin faytonunda gəzməkdə ittiham olunduğu üçün güllələnmişdi. Onun güllələnməsi ilə bağlı qərarı Azərbaycanın Daxili İşlər Naziri Həmid Sultanov təsdiq etmişdi. Firudin bəy Köçərli mayası maarifçilikdən yoğrulmuş bir fədai idi, ədəbiyyatımızın və folklorumuzun inkişafında əvəzsiz xidmətləri olmuşdu. O, Azərbaycan ədəbiyyat tarixçiliyi elminin banisidir. Sanki Tanrı özü onu övladdan məhrum etmişdi ki, xalq sənin balalarındır. F.B.Köçərli əlifba islahatı ilə məşğul olan alimlərimizdən biri idi. O deyirdi ki, bir milləti məhv etmək istəyirsənsə, dilini məhv et. Firudin bəy Köçərlinin təhsil həyatında İsmayıl Şıxlının "Dəli Kür" romanında da adı çəkilən Çernyayevskinin rolu əvəzsiz idi. F.B.Köçərli ilk repressiya qurbanıdır. 1920-ci il aprel çevrilişindən sonra may ayında Köçərli Qazax İnqilab Komitəsi tərəfindən həbs edilir və Gəncə Fövqəladə Komissiyasının sərəncamına göndərilir. O, müsavatçı olduğuna görə, "əksinqilabçı" və "millətçi" damğaları ilə ittiham olunur. İttihamda qeyd olunur ki, Firudin bəy Köçərli AXC dövründə ona verilən səlahiyyətlərdən sui-istifadə edərək, xalqı aldatmış, yoxsul kəndlilərin torpaqlarını zor gücünə mənimsəmiş, milli nifaq toxumu səpmişdir. Köçərli onun barəsində irəli sürülən ittihamları rədd etməsinə baxmayaraq, ədəbiyyatşünas, pedaqoq olan ziyalımızın barəsində güllələnmə hökmü verilir və 1920-ci ilin 5 iyun tarixində güllələnir.

Kəsəmənli üçün Halay bəyin ölümü ağır zərbə idi. Onu qaçaqçılıqdan çəkindirmiş, öz nüfuzundan istifadə edib onu müəllim kimi işə düzəltməyə müvəffəq olmuşdu, amma fələk saydığını saydı. Onun bu addımı sinfi mübarizəni daha da kəskinləşdirdi. Özü öz əlləri ilə müəllimi ölümün ağuşuna atmışdı. Qanlı rejimin yetişdirməsi, "tələbəsi" olan Fətullayev onu da Firudin bəy Köçərli kimi güllələməyi bacarmışdı. Kabı Kəsəmənlinin Fətullayevi layiq olduğu şəkildə cəzalandırması müəyyən mənada həqiqətin qələbəsidir. Gecikmiş olsa da...

Fətullayevin bir göz qırpımında çirkli qanı ətrafa yayıldı. Kəsəmənli qanı qanla yudu, qisas gününü qiyamətə saxlamadı. O zaman da milli əxlaq normasından çıxış etdi. Kəsəmənli müəllimi qoruya bilməmişdi. Müəllim deyirdi ki, mən namərdlərdən qorxuram, qorxduğu başına gəldi. Kəsəmənlinin elə bil ciyəri alışıb-yanırdı, ürəyini sanki düşmən nişan almışdı, atəş açmasa da sanki ürəyi yox idi, nəbzi zəif vururdu. Kəsəmənli artıq dostunun yerinə qaçaqlara rəhbərlik edir, onları Arazdan o tərəfə keçirdir. Beləliklə, qaçaqların mühacirət həyatı başlayır. İsmayıl Şıxlı bu rəmzi sonluqla deməyə çalışır ki, milli ideallar ölümsüzdür, mühacirətə getsə də, bir gün yenə qayıdacaq. Kəsəmənli mərdlik və qeyrətin mücəssiməsinə çevrilir.

Mürsəl müəllim Qaymaqlı kəndinin müəllimi idi. Sakit, vicdanlı, təmizürəkli bir insan idi. Kəndə yeni-yeni öyrəşirdi. Kəndin digər müəllimi də yenicə təyinat almış gənc müəllimi kəndin adətləri ilə tanış edirdi. Qız-gəlinlərin suya getməyi, zümzümələri haqqında eşidəndə Mürsəl müəllim təəccübünü gizlədə bilmədi. Mürsəl müəllim bir gün otağından tapdığı qrammofonu qoşdu, musiqinin avazı bütün kəndə yayıldı. Qrammofonda eşitdiyi musiqilər sanki müəllimin ruhunu təzələyirdi. Bəlkə də müəllim bu kənddə bu musiqilərlə rahatlıq tapırdı, lakin onun bu sevinci çox çəkmədi...Kəndə işıq, yenilik, təmiz hava ilə bərabər təmiz düşüncə gətirən müəllimin aqibəti faciə ilə nəticələndi. O, nadanlığın, cəhalətin qurbanı oldu, gecə ikən yatağında öldürüldü. Onu kənddə işləyən "uçitel" bəzi məsələlərdən çəkindirməyə çalışsa da, müəllim inqilaba həvəsli olur, qrammofon oxutdurur, teatr tamaşaları hazırlayır, savad kursları açmağa cəhd göstərir, savadsız kəndlilərə oxumağı, yazmağı öyrədir. Fədakar müəllimin özünü xalqı üçün şam işığı kimi yandırması, mübariz olması bizə Cəfər Cabbarlının "Oqtay Eloğlu"sunu, "Almaz"ını, "Yaşar"ını xatırladır.

Mürsəl müəllim kənddə qısa müddət fəaliyyət göstərsə də, bir çox yeniliklər etdi. Öncəliklə ilk teatrın təşəbbüskarı oldu. Müəllim kəndə yeniliklər gətirmək istəyirdi. O dövr elə bir dövr idi ki, teatr

tamaşasının göstərilməsində, uşaqların məktəbə göndərilməsində çoxlu maneələr vardı. Mürsəl müəllimə həmkarı da dəstək çıxdı, onun daxilində basdırdığı arzuları birdən coşa gəldi. Beləliklə, "Hacı Qəmbər" tamaşası səhnəyə qoyuldu. ("Hacı Qəmbər" Nəcəf bəy Vəzirovun "Yağışdan çıxdıq, yağmura düşdük" pyesi əsasında səhnələşdirilib) Tamaşa başlamazdan öncə tamaşanı izləməyə gələn vəzifəli şəxslərin "səhnə"də stul qoyaraq, "biz həmişə yuxarı başda otururuq" deməsi oxucunun həmin an diqqətindən yayınmır. Nəhayət, tamaşa uğurla səhnələşdirildi. Mürsəl müəllim kimi müəllimlər indi də çox olsa idi, nə vardı...

Uçitellə Mürsəl müəllimə təliqə (rəsmi məktub) gəldi ki, kənddə savadsızlığın ləğvi başladılsın. Gecə kursları açılsın və savadsız kənd camaatı kurslara cəlb olunsun, oxumağı, yazmağı öyrənsin. Mürsəl müəllim birdən fikrə daldı: kənddə savadlı adam yox idi, əgər kiməsə həbsxanadan, əsgərlikdən, başqa eldən, obadan məktub gəlsə, qadınlar abır-həya edib özləri gəlməzdilər, məktubu kişilərə verərdilər ki, savadlı bir adam tapıb məktubu onu oxutdursun. Buna görə də məktubu yazan şəxs yazının sonunda məktubu oxuyana və qulaq asana təşəkkürünü bildirərdi.

Təəssüf ki müəllimin kəndə yenilik gətirməsini, savadsızlıqla mübarizə aparmasını həzm edə bilmədilər. Çapıq Əmrah müəllimə xəbərdarlıq etdi ki, nə musiqi oxudulsun, nə də teatr göstərilsin. Mürsəl müəllim gənc idi, məktəbə, təhsilə qarşı onda güclü həvəs vardı. Bir çox məsələləri dərk etmirdi. Dərk etmirdi ki, bir gül ilə bahar olmur. Dərk etmirdi ki, tək əldən səs çıxmır, əzəldən camaatın ruhuna, genetikasına hopmuş zəncirvari quruluşu bir nəfərlə, bir günə məhv etmək, dəyişmək olmur. Uçitel təcrübəli, uzaqgörən müəllim idi. O bilirdi ki, gecə kursları və kəndə yayılan zümzümələr Mürsəl müəllim üçün yaxşı olmayacaq. Hansı ki o zümzümələrdə Mürsəl müəllimlə, dərs dediyi cavan gəlin Zöhrənin adı yanaşı çəkilirdi. O bilirdi ki, bu kənddə özünü necə aparmaq lazımdır, nələri etmək olar, nələri etmək olmaz. Mürsəl müəllimsə cahilliklə savaşmaq istəyirdi, halbuki silahı belə yox idi. Mürsəl baş verənləri təəccüb içində izləyir, məna verə bilmirdi. Mürsəl istəyirdi ki, mübarizə aparsın, təslim olmasın. Onların qabağından qaçmasın, onlar bu kəndin ağası, yiyəsi deyillər axı. Uçitelsə, ona məsləhət verirdi ki, zorla nəsə əldə etmək olmur, zamanı var. Mürsəl müəllimsə düşünürdü ki, inqilabdan qorxmamalısan, bacardıqca səy göstərməlisən. Cəfər Cabbarlı o Cəfər Cabbarlı idi ki, qapı-qapı gəzib qız uşaqlarını məktəbə cəlb etmişdi. Yüzlərlə Cabbarlılar var idi ki, insanları elmə cəlb edirdilər, savadsızlıqla mübarizə aparırdılar. Mürsəl müəllim də həmin Cabbarlılardan biri idi.

İsmayıl Şıxlının "Dəli Kür" romanında rus Əhməd obrazı ilə Mürsəl müəllim arasında bir bağlılıq var. Rus Əhməd və ya poçt Əhməd, daha dərinə getsək, uçitel Əhməd. Əhməd müəllim. Uçitel Əhməd maarifçi, sadə, savadlı obrazdır, kənddə öz evində müəllimlik edərək, səy göstərirdi ki, kənd uşaqları oxumağı, yazmağı öyrənsin. O, Cahandar ağanın oğlu Əşrəfin ilk müəllimi idi. Əşrəf kənddə Qori Müəllimlər Seminariyasında təhsil almış yeganə kənd sakini idi. Mürsəl müəllim də, uçitel Əhməd də savadsızlığa qarşı çıxırdı, onlar qol gücü ilə yox, qələm gücü ilə savaşırdılar. Hər iki obraz qorxuları, hədələri bir kənara qoyurdu. İnqilab etmək istəyirdilər.

Uçitel düşünürdü ki, cəmiyyətin öz embrioloji mərhələləri var. Zor tətbiq etsən, nəsə hasil olmaz. Yarımçıq doğulan uşaq belə ya öləcək, ya da əqli və ya fiziki qüsurlu doğulacaq. İnsan kamil olmağı bacarmalıdır, oxumalı, yazmalı, həyatın reallığına varmalı, ağıllı olmalı, ağıldan sonrakı dövrdə müdrik olmalı, müdrikləşməlidir. İnsan ağlı təkamül etməlidir, təkamül olmalıdır ki, inqilab olsun. Uşaq 9 ay ana bətnində formalaşır, günbəgün inkişaf edir. Tez doğulmağı da anomaliyadır, gec doğulmağı da. Vaxtı, vədəsi yetişəndə doğulmalıdır. Cəmiyyət də elədir. Sən cəmiyyətə yeni bir ideyanı həmin gün göstərib "sırımağa" çalışsan, cəmiyyət o ideyadan qaçacaq, qəbul etməyəcək. Heç vaxt görmədiyi, ilk dəfə qarşılaşdığı bir şeyi həmin an necə həzm etsin? Mirzə Fətəli Axundovun yaradıcılığına kiçik bir səyahət etsək, "Aldanmış kəvakib" povestində xalq Yusif Sərracı qəbul etmədi, çünki xalq həmişə Şah Abbası görmüşdü. Görmüşdü ki, hər gün başlar kəsilir, camaata divan tutulur. Xalq buna adət etmişdi, buna öyrəşmişdi. Yusif Sərracın qəfil gələn humanistliyi xalq üçün dözülməz oldu, sırf bir qəlibə, bir standarta öyrəşən xalq standartlardan, normalardan kənara çıxa bilmədi, üsyan edib Yusif Sərracı taxtdan saldı və köhnə yaşayışa, həyat tərzinə qayıtdı. Günümüzdə istər uşaqların tərbiyəsində, istər digər məsələlərdə irəli sürülən orijnal fikri çoxumuz qəbul etmirik, etmək istəmirik, çünki "dədə-baba"dan belə görmüşük, belə gəlib, belə gedib. Biz dərk etmirik ki, kütlə hər zaman düz ola bilməz, baba bunu edibsə, bu, o demək deyil ki, bu, doğru yoldur və bunu ata da etməlidir. Bu, zəncirvari bir prosesdir, hansı ki şüuraltı olaraq, bizə ötürülən genetik kodlarla hərəkət edirik. Biz bu kodları qıraraq, inqilaba açıq ola bilərik, amma biz hər hansı bir ideyanı, yeniliyi yavaş-yavaş

insanlara qəbul etdirməliyik. “Xəstə cəmiyyətin yaraları göynəyir, əzab-əziyyət verir və nəhayət, yetişir; bədəndə olan çiban kimi. O çibanların deşilmə mərhələsi gəlib çatır. Kim cəmiyyətin bu vəziyyətə düşməsini əvvəlcədən görürsə və neştəri götürüb hamıdan əvvəl yaranı kəsirsə, dahiyə çevrilir. Yenə deyirəm, əslində, cəmiyyət özü dəyişir, təzələnmək istəyir. Dahilər isə qabağa düşüb bu işi sürətləndirirlər.” [6, s.95]

Ziyalılarımız yol göstərirlər, həqiqəti deyirlər, o yolla getmək insanın özünə qalıb. Yaşadığın cəmiyyətin öz qanunları var, o qanunları öyrənə bilməsən, səni tezliklə oradan uzaqlaşdırarlar. Uçitel də istəyirdi ki, Mürsəl müəllim hələ gəncdir, həyatı məhv olmasın, ona yol göstərməyə çalışsın. Mürsəl müəllim qrammofonu götürüb bir müddət oxutmadı. Yenidən oxutmağa başlayanda zümzümələr də başladı. Mürsəl müəllim bu kənddə çox işlər görmək istəyirdi. Bu il məktəbdə may bayramı (“Zəhmətkeşlərin günü”) keçiriləcəkdi. Buna görə əməlli-başlı hazırlıq görürdü. O qədər sevincli idi ki, diqqət yetirmirdi ki, bəziləri ona ölüm planı hazırlayır, onun yatdığı yeri hədəf alır. Həmin ərəfədə ona hədə-qorxu gəlmişdilər. Uçitelin sözü burada yada düşür: “İndi gərək hər şeyi öyrənəsən, ehtiyatlı olasan. Bir yatdığın yerdə bir də yatmayasan, yerini tez-tez dəyişdirəsən. Pis niyyətlə evinə gələn olsa, axşam harda yatacağını bilməsin.” [6, s.96]

Mürsəl müəllim uçitelin nəsihətlərini tamamilə unutdu. Bəlkə də bilirdi. Bilirdi ki, ölümə gedir. Özü öz taleyini çizdi, diqqətsizlik etdi, ölümə doğru qaçdı. Onu gecə yatağında öldürmüşdülər. Molla onu komsomol (siyasi fəal) olduğu üçün məsciddən götürməyə qoymadı. Kənd camaatı meyiti yudu, kəfənlədi. Uşaqlar ürkək baxışlarla müəllimdən yadigar qalan qrammofona baxırdılar. Cənginin səsləri altında Mürsəl müəllim son mənzilə yola salındı. Mürsəl müəllim elm çırağını yandırmaq istəyərkən, onun öz çırağını söndürdülər. Mürsəl müəllimin bütün arzuları, planları onun cansız bədəni ilə bərabər torpağa qarışdı. O, yeni məktəb, klub tikmək, teatr tamaşaları göstərmək, savadlı uşaqlar yetişdirmək istəyirdi. Bax beləcə cahil insanlar savadlı adamlardan qorxduqları üçün onu qısa zamanda məhv etdilər. Düşünən beyinləri məhv etdilər ki, düşündürməsin, amma cismini məhv etdilər, ideyalar ki yaşayır. Cahil insan niyə savadlı insandan qorxur? Çünki bilir ki, savadlı insan onun cahil insan olduğunu bilir. Necə ki qul azad insana nifrət edir, çünki bilir ki, azad fikirli insan onun qul olduğunun fərqindədir.

Mürsəl müəllimin ölümü əqidə məsələsi idi. Onun heç ölmək ağlında yox idi. Sadəcə olaraq, belə düşünürdü ki, milləti maarifləndirmək lazımdır. Bu adam vurub-tutan adam olmayıb, iradəsi möhkəm idi, işıq, ziya gətirmək üçün ölümə də getməyə hazır idi. O ölmək fikrində deyildi, sadəcə onun qarşısında sədd çəkdilər.

Romanda maarifçiliyi təbliğ edən, vicdanlı müəllim obrazlarından biri olan Uçitel obrazı yazıçının atası Qəhrəman Şıxlinskinin proobrazıdır. O, teatrla, maarif sahəsi ilə bağlı çox maneələrlə qarşılaşır. Romanda da Mürsəlin timsalında yazıçı bu maneələri göstərir. Yazıçının atasına deyiblər ki, teatr qurmasın, “oyun çıxarmasın”. Qəhrəman müəllim də kənddə işləyirdi, şeir yazırdı. Onu hədələyirlər, o da hədənin əvəzində satirik şeir yazır, oğlu İsmayıla verir.

İsmayıl Şıxlı xalqını manqurtlaşmış görmək istəmirdi, çıxış yolu kimi tarixi, genetik yaddaşımıza qayıtmağı, tarixi kimliyimizi araşdırmağı, özümüzü tanımağı, özümüzə bələd olmağı, mənəvi sərvətlərimizi, mənəvi xəzinəmizi qorumağı təklif edirdi. Biz zəif cəhətlərimizi bilməyəndə düşmən bizi nə ilə vuracağını çox yaxşı bilir. Biz öz dəyərlərimizə sahib çıxaraq, bir sonrakı nəsil üçün nümunə oluruq, onlara bu dəyərləri miras qoyuruq. Məqalədə ziyalılarımızın, elm çırağını yandırmaq istəyən vətənpərvər qəhrəmanlarımızın tarixi faciələri, acınacaqlı taleləri araşdırılmışdır.

**ƏDƏBİYYAT**

1. Bayramov X. Gəncə üsyanı-1920. Sənədlər və materiallar. Bakı, KitabKlubu.org, 2019, 240 s.
2. İsmayılov Y. İsmayıl Şıxlı. Həyatı, mühiti, sənəti, Bakı-“Ayna Mətbu Evi”-1999, 223 s.
3. Məmmədov F. İsmayıl Şıxlının “Ölən dünyam” romanında tale və qismət. Azərbaycanşünaslığın aktual problemləri. Bakı: Mütərcim, 2019, 488 s.
4. Nəzərli Ş. Qoridən gələn Qatar.Firudin bəy Köçərli-150. Ədalət.-2013.-7 mart.-S.7.
5. Salamoğlu T. İsmayıl Şıxlının bədii nəsri. Bakı, “E.L.” NPŞ MMC, 2014, 176 s.
6. Şıxlı İ. Ölən dünyam. Bakı, Qanun Nəşriyyatı, 2021, 192 s
7. Zeynalova D. İsmayıl Şıxlının yaradıcılığında milli özünüifadənin bədii inikası (yazıçı və folklor problemi əsasında), dissertasiya, filol. e. n. alimlik dər. al. üçün, Bakı, 2005, 128 s.

# İNGİLİS VƏ NAXÇIVAN FOLKLOR NÜMUNƏLƏRİNDƏ TƏRBİYƏVİ MƏZMUNLU ATALAR SÖZLƏRİNİN OXŞAR VƏ FƏRQLİ LİNQVİSTİK XÜSUSİYYƏTLƏRİ

**GÜLVIRA ABBASOVA**
AMEA Naxçıvan Bölməsi
*Email: gulvira_abbasova@mail.ru*
NAXÇIVAN ŞƏHƏRİ

**XÜLASƏ**

Məqalədə İngilis dilində tərbiyəvi məzmunlu atalar sözlərinin Naxçıvan folklorunda qarşılığı, bu nümunələrin oxşar və fərqli linqvistik xüsusiyyətləri araşdırılmışdır. Həmçinin folklor nümunələrində geniş yer tutan, məxsus olduğu xalqın adət-ənənlərini, yaşayış tərzini, dünyagörüşünü özündə əks etdirən atalar sözlərinin dilimizdə düzgün ifadə olunması üçün qruplara bölünərək araşdırılması məqsədəuyğun hesab edilmişdir. İngilis və Naxçıvan folkloruna məxsus ibrətamiz məzmunlu atalar sözlərinin həm mənaca, həm leksik, həm də qrammatik cəhətdən bir-birindən fərqli və oxşar cəhətləri müəyyənləşdirilərək məqalədə tədqiq olunmuşdur.

In the article, the equivalents of the English proverbs with didactic content in Nakhchivan folklore, the similar and different linguistic features of these examples are investigated. Also, it is appropriate to divide proverbs which are important in folklore examples and reflect the traditions, lifestyle, and outlooking of the people, into groups in order to correctly express them in our language. The didactic proverbs belonging to English and Nakhchivan folklore have been identified and studied in the article by determining the differences and similarities in terms of meaning, lexis, and grammar.

**AÇAR SÖZLƏR: İngilis, Naxçıvan, folklor, atalar sözləri, dil.**

## GİRİŞ

Atalar sözləri xalqın zehni inkişaf səviyyəsinin, fitri istedadının bariz nümunəsi və uzaq keçmişdən gələn dərin məna və xalq müdrikliyini özündə əks etdirən əsas amildir. Məkan və zamanından asılı olmadan bütün millətlərin folklorunun əsasını atalar sözləri təşkil edir. Dilin əsas vahidi olan atalar sözünün əsl dəyəri onun yığcam, tutumlu və sadə dillə çatdırılmasıdır. Atalar sözləri əzəldən dəfələrlə sınaqdan çıxmış, qazanılan təcrübələrin nəticəsində deyilən müdrik kəlamlardır. Frazeoloji vahidlərin bir növü sayılan atalar sözlərinin arxasında xalqın folkloru dayanır [1, s. 241]. Məlum olduğu kimi hər bir xalqın öz milli mənsubiyyəti, dünyagörüşü, dini inancları, dil daşıyıcıları vardır. Dərin milli xüsusiyyətlərə malik olduğu üçün bu vahidlər kortəbii işlənmir. Buna görə də onların əksəriyyəti digər dillərə eynilə tərcümə olunmur. Müasir ingilis dilində söz birləşmələri və cümlədə sözlər arasında sintaktik-qrammatik əlaqələr köməkçi feillər, sözönüləri, artikl və digər vasitələrlə ifadə edilir. Bu analitik vasitələrin əksəriyyətinin Azərbaycan dilində birbaşa qarşılığı olmadığı üçün onları düzgün ifadə etmək bəzən çətin olur. Həmin xüsusiyyətləri bəzi atalar sözlərində açıq-aşkar görmək mümkündür.

## TƏDQİQAT METODU

İngilis dilində olan atalar sözlərinin ana dilimizdə ekvivalentini düzgün tapmaq üçün məna etibarilə onları 3 qrupa bölmək olar.

1. Həm məna, həm də leksik tərkibinə görə hər iki dildə eyni olan atalar sözləri. Məsələn: "İf you run after two hares, you will catch neither" [3, s. 161]. Naxçıvan dialektində qarşılığı: "Bir güllə ilə iki dovşanı vurmaq olmaz" [2, s. 126]. Nümunə ingiliscədə mürəkkəb cümlə ilə ifadə olunsa da, Azərbaycan dilində sadə cümlədən istifadə olunmuşdur.
2. Mənaca uyğun, lakin leksik tərkibinə görə bir-birindən fərqli atalar sözləri. Məsələn: "Every man thinks his own geese swans" - "Ana ilə bala oturar, hərə közü öz qabağına çəkər" [1, s. 240].
3. Azərbaycan dilində müvafiq qarşılığı olmayıb, hərfi tərcümə olunan atalar sözləri. Məsələn, "Never refuse a good offer" - "Yaxşı məsləhətdən heç vaxt imtina etmə". "No news is a good news" - "Heç bir xəbərin olmaması yaxşı xəbərdir". "İt is the tip of the iceberg" - "Bu aysberqin görünən tərəfidir", "An apple a day keeps the doctor away - Gündə bir alma səni həkimdən uzaq tutar" .

Atalar sözləri ilə tanış olmadan dilin xüsusiyyətlərini bilmək mümkün deyildir. Buna görə də atalar sözlərini ingilis və Azərbaycan dillərinin linqvistik xüsusiyyətləri kontekstində araşdırmaq

böyük əhəmiyyət daşıyır. Hər iki dilin atalar sözlərinin tərbiyəedici, emosional, didaktik funksiyaları vardır. Məsələn, "Cut your coat according to your cloth". Hər kəsə büdcəsinə uyğun xərcləməyi məsləhət görən bu atalar sözünün Naxçıvan folklorunda qarşılığı "Ayağını yorğanına görə uzat" şəklində verilmişdir [2, s. 121]. Hərfi tərcüməsi: "Paltonu öz parçana uyğun kəs" olan atalar sözü iki dildə fərqli sözlərlə ifadə olunsa da, məzmun baxımından eynidir. "Never look a gift horse in the mouth" atalar sözü istər tərcümə, istərsə də qrammatik cəhətdən dilimizdən fərqlənir. Belə ki, nümunənin Naxçıvan folklorunda qarşılığı "Bəy verən atın dişinə baxmazlar"-dır [2, s. 125]. Cümlələr quruluşuna görə biri əmr, digəri isə nəqli cümlə olduğu kimi, sintaktik baxımdan da ingilis dilində cümlənin təyini isim, Azərbaycan dilində isə feili sifət tərkibi ilə ifadə olunmuşdur. Həmçinin cümlədəki "in" sözönü dilimizə "da2" deyil "a2" kimi tərcümə olunur. "Birds of a feather flock together" - "Taylı tayın tapmasa, pis keçər axır günü" [2, s. 154]. Sadə cümlə ilə ifadə olunan atalar sözünün dilimizdə ekvivalenti şərt budaq cümləli tabeli mürəkkəb cümlə şəklində verilmişdir. Həmçinin ingilis folklorundan olan nümunədə söz sırası pozulmadığı halda tərcumədə baş cümlədəki tamamlıq "axır günü" inversiya yaradaraq cümlənin sonuna keçmişdir. Bu nümunələr istər tərcümə, istərsə də qrammatik baxımdan Azərbaycan və ingilis dillərində müəyyən oxşar və fərqli xüsusiyyətlərə malikdir.

"Those who (that) live in glass houses should not throw stones" frazeoloji vahidinin Naxçıvan folklorunda "Bağçalar barı, heyvalar narı deyinsə, sən deyinmə barı" [2, s. 125]. Məna qrupuna görə 2-ci qrup atalar sözünə aid olan bu nümunədə ortaya çıxan bir sıra qrammatik fərqliliklər müşahidə olunur. Məsələn, ingilis dilində mübtəda budaq cümləsi ilə ifadə olunan atalar sözünün qarşılığı Azərbaycan dilində şərt budaq cümləli tabeli mürəkkəb cümlə ilə ifadə olunmuşdur.

"When in (at) Rome do as the Romans do" "Romada olanda romalılar kimi et" hərfi tərcümədən də məlum olduğu kimi bu atalar sözünü mənaca 2-ci qrupa aid edə bilərik. Yəni, Naxçıvan folklorunda "Özgə evə gəldin, suyu ev sahibinin vedrəsiylə çəh"[5, s. 97]. Bu atalar sözünün ekvivalenti ola bilər. Hər iki dildəki nümunə zaman budaq cümləli tabeli mürəkkəb cümlədir. İngilis dilində cümlə üzvlərindən mübtəda və xəbərin yeri sabit olmasına baxmayaraq, nümunədəki budaq cümlədə mübtəda və xəbərin buraxıldığını müşahidə edirik. Baş cümlədə olduğu kimi, onun dilimizdəki qarşılığı da əmr cümləsindədir.

"İf it ain't broke, don't fix it" – Ağrısız başa saqqız yapışdırma [4, s. 280]. Atalar sözündəki "ain't" müasir ingilis dilindəki "to be" feilinin III şəxsin təki olan "is not"-un qısaldılmış formasıdır. Mənaca eyni, lakin leksik quruluşuna görə tamamilə fərqlənən atalar sözündə qrammatik fərqlərin də olduğunu görürük. Digər nümunələrdə olduğu kimi, mürəkkəb cümlə ilə ifadə olunan bu atalar sözünün qarşılığı dilimizdə sadə cümlə şəklində mövcuddur.

"It is no use crying over spilled milk" – Ağlamaqla günah bağışlanmaz [4, s. 277].

Məna quruluşuna görə 2-ci qrup atalar sözünə aid olan nümunə və onun Naxçıvan folklorunda qarşılığı sadə cümlədir. Nümunədəki həm "it" şəxs əvəzliyi, həm də, "crying" cerundu mübtəda funksiyasında çıxış edir. Bu atalar sözündə fərqli xüsusiyyətlər olduğu kimi oxşarlığın olduğunu da görə bilərik. Belə ki, ingilis dilindəki "crying" cerund, azərbaycan dilində isə "ağlamaqla" feili bağlaması feilin təsriflənməyən formasıdır.

İngilis dilində tez-tez istifadə edilən "Strike while the iron is hot" ifadəsinin dilimizdə qarşılığı "Dəmiri isti-isti döyərlər" atalar sözüdür. Göründüyü kimi, hər iki dildə atalar sözünün ümumi məzmunu eynidir. Tərcümə baxımından ifadələr oxşar olsa da, qrammatik baxımdan müəyyən fərqlər özünü göstərir. Belə ki, ingiliscədəki atalar sözündə "isti" nitq hissəsi kimi sifət, Azərbaycan dilindəki atalar sözündəki "isti-isti" isə tərzi-hərəkət zərfidir. İngiliscə nümunə "while" bağlayıcısının köməyilə yaranan, zaman budaq cümləli tabeli mürəkkəb cümlə, azərbaycanca qarşılığı isə sadə cümlədir.

"Don't bite the hand that feeds you" – Əl uzadılan yerə dil uzadılmaz [5, s. 99]. Atalar sözündə leksik cəhətdən tam olmasa da, müəyyən qədər oxşarlıq nəzərə çarpır. Hər iki dildə atalar sözü oxşar bədən üzvləri ilə ifadə olunmuşdur. Məsələn, "hand-əl" sözü hər iki nümunədə mövcuddur. İngilis dilində "that " təyini əvəzliyi ilə birləşən "hand" sözü ayrıca bir cümlə üzvü kimi (tamamlıq) çıxış edərək təyin olunan sözdür. Lakin, Azərbaycan dilində "əl" feili sifət tərkibi daxilində işlənərək təyin edəndir."Dil uzatmaq" frazeoloji birləşməsini atalar sözündə "bite- dişləmək" feili əvəz etmişdir.

"The grass is always greener on the other side" – Özgənin toyuğu özgəyə qaz görünür [5, s. 103]. Atalar sözündə insanların sahib olduğundan daha çox şey istədikləri vurğulanmışdır. Leksik cəhətdən bir-birindən tamamilə fərqlənsə də, mənaca oxşar olan bu nümunə də dilimizdə geniş istifadə olunur.

"Where there's a will, there's a way"- Cəfa çəkən, səfa sürər [5, s. 101]. Atalar sözü ingilis dilində "where" bağlayıcısı vasitəsilə yaranan yer budaq cümləli tabeli mürəkkəb cümlədir. Müasir ingilis dili kitablarında "there" formal sözü ilə başlanan nəqli cümlələrə xas olan söz sırası (xəbər+mübtəda) ənənəvi olaraq inversiya adlandırılır. Lakin Oruc Türksevər (Musayev) həmin qəbildən olan nəqli cümlələri həm məzmun, həm də formaca xüsusi qrup cümlə hesab etdiyi üçün bu cümlələrdə "xəbər+mübtəda" düzülüşünü adi söz sırası hesab edir. Atalar sözünün Naxçıvan folklorunda qarşılığı hesab etdiyimiz cümlə isə mübtədası feili sifət tərkibi ilə verilmiş sadə geniş cümlədir.

"Beggars can't be choosers" - Qonaq umduğunu yox, tapdığını yeyər [5, s. 95]. Leksik baxımdan, bir-birindən tamamilə fərqlənən atalar sözündə ümumi məzmun eynidir. Atalar sözünün ingiliscəsinin xəbəri "qarışıq xəbər" (mixed types of the predicate) vasitəsilə yaranmışdır. Yəni, xəbərin birinci tərəfi "can't be" mürəkkəb feili modal xəbərlə (modal feil + məsdər ), ikinci tərəfi isə ad "choosers" ilə ifadə olunmuşdur. Atalar sözünün azərbaycancasına nəzər saldıqda, cümlənin tamamlığının ismin təsirlik hal şəkilçisini qəbul edərək substantivləşmiş (isimləşmiş) feili sifətlə (umduğu, tapdığı) ifadə olunduğunu görürük.

"Don't judge a book by its cover"- Lilli çayın dibin görmədilər, dedilər dibi yoxdur [5, s.102]. Yuxarıda sadaladığımız qruplardan II-nə aid olan bu hikmətli sözdə hər bir kimsə, nəsə və ya hər hansı hadisə haqqında bilmədən fikir bildirməyin yanlış olması nəzərdə tutulur. Azərbaycanca nümunə formaca qeyri-müəyyən şəxsli cümləni xatırlatsa da, yuxarıda da qeyd etdiyimiz kimi atalar sözləri ümumi şəxsli cümlələr sayılır. Cümlənin birinci tərəfi tabesizlik intonasiyası ilə yaranan tabesiz mürəkkəb cümlə, ikinci tərəfi isə tamamlıq budaq cümləli tabeli mürəkkəb cümlədir. Cümlənin birinci tərəfinin xəbəri feillə, ikinci tərəfinin isə baş cümləsi feili xəbərlə, budaq cümləsi isə müstəqil ismi xəbərlə (yoxdur) ifadə olunmuşdur. Məlum olduğu kimi, dilimizdə morfoloji baxımdan "sözönü" ayrıca mövzu olmadığından, bu bölməyə daxil olan sözlər dilimizdə qoşma, bağlayıcı, ədat, zərf və digər nitq hissələrinə aid olan sözlər kimi öz əksini tapmışdır. Atalar sözünün ingiliscəsində "by" sözönünün analitik mənada dilimizə "görə" qoşması kimi tərcümə olunduğunu müşahidə edirik

"A rolling stone gathers no moss"- Diyirlənən daş hamarlanar, düşüb qalan daş mamırlanar [5, s. 97]. Nümunə yuxarıda qeyd olunan atalar sözü qrupundan I-nə aiddir. Yəni leksik cəhətdən bir birilə eyniyyət təşkil edən atalar sözündə qrammatik cəhətdən də bir o qədər fərq nəzərə çarpmır. Həm azərbaycanca həm də, ingiliscə nümunədə "rolling" və "diyirlənən" sözü qrammatik baxımdan "feili sifət" hesab olunur.

"One swallow does not make a summer" –Bir qoyundan sürü olmaz [5, s, 103]. Atalar sözü göründüyü kimi leksik baxımdan müəyyən fərq olsa da, məzmun olaraq oxşardır. Hər iki nümunədə "bir" sayı mövcuddur. Zoonimlər hər bir dilin leksik bazasında mühüm yer tutur, söz yaradıcılığı prosesində fəal iştirak edir. Hər iki atalar sözündə də zoonim tərkibli sözün iştirak etməsi və "bir" sayının olması oxşar xüsusiyyətdir.

**NƏTİCƏ**

Dilin daşıyıcısı olan xalqın yaratmış olduğu hikmətli sözlər özündə həmin xalqın tarixini, adət-ənənəsini, etnoqrafiyasını, həyat və yaşayış tərzini əks etdirir. Atalar sözlərində çoxəsrlik tarix gizləndiyindən bu vahidlərin öyrənilməsi və dərindən araşdırılması xüsusi əhəmiyyət kəsb edir.

**ƏDƏBİYYAT**

1. Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsi Xəbərləri. İctimai və humanitar elmlər seriyası. 2016, № 3.
2. Əhmədov M. Naxçıvan qrupu şivələrinin lüğəti. Atalar sözləri. Bakı: Atilla, 2001, 170 s.
3. Dil və ədəbiyyat. Beynəlxalq elmi nəzəri junal. 2018, № 4 (108).
4. Naxçıvan folkloru antologiyası I cild. Naxçıvan "Əcəmi" NPB, 2010, 506 s.
5. Naxçıvan folkloru antologiyası II cild. Naxçıvan "Əcəmi" NPB,2011, 488 s.

# DRAM ƏSƏRLƏRINDƏ PSIXOLOGIZMIN TƏZAHÜR XÜSUSIYYƏTLƏRI

**NIGAR FƏRZƏLIYEVA**
BDU QAZAX filialı
Filologiya/Azərbaycan
*nigar.ferzeliyeva@inbox.ru*
QAZAX, AZƏRBAYCAN

**XÜLASƏ**

İnsan şəxsiyyətinin əsas təzahür formalarının fəaliyyət nöqteyi-nəzərindən təsviri dramaturgiyadır. Pyesdə dram və ekspressionizm duyğuların, ifadələrin, qəzəblərin, narahatlıqların və insanın içində yaşadığı hər şeyin nümayişi sayəsində populyarlıq qazandı. Dramın əsas meyarı ondan ibarətdir ki, o, artıq hərəkətləri deyil, insanın daxili vəziyyətini, pyesdəki personajların daxilində dəqiq nələrin və nə qədər təcrübələrin olduğunu, bunun sayəsində insanın daxili özünə qalib gəlməsini ortaya qoyur. Dramın əsas məqsədi ehtirasların həqiqətini göstərməkdir. Dramaturiyada iki əsas istiqamət var - sosial-psixoloji və lirik-psixoloji. Dramatik əsərin janrlarından biri psixoloji dramdır ki, burada bütün hərəkətlər baş qəhrəmanın həyat qovşağına, onun daxili ziddiyyətlərinə və daxili cavab axtarışlarına bağlıdır.

**AÇAR SÖZLƏR: dram, insan, psixologiya,**
**KEY WORDS**: **drama, person, psychology**

## GIRIŞ

Psixoloji dram ədəbi əsər janrı kimi XVII əsrin sonlarında fransız yazıçısı Madam De La Fayette yaradıcılığından yaranır və ilk çiçəklənməsini XIX əsrdə yaşayır. Bu dövrdə psixoloji dram insan hisslərinin və duyğularının estetik cəhətdən müstəqil ola biləcəyinə çalışan tanınmış bir sənətə çevrildi.

Qeyd etmək lazımdır ki, psixoloji dram kifayət qədər burjua xarakteri daşıyır. Burjua kainatla bağlı dini və əxlaqi şübhələrdən narahat deyil, onun daxili aləminin kifayət qədər maraqlı olduğuna və əsərə çevrilməyə layiq materiala malik olduğuna əmindir. Yazıçı və ya rejissor həmişə əsərin müstəqil yaradıcısıdır, dramın mərkəzində o, hərəkətləri deyil, həyatda baş verən hər şeyi bilən personajların fikirlərini, məhz öz mövqeyindən təsvir edir. Psixoloji janr mümkündür, çünki biz başqa şey haqqında düşünmürük, dramda əsas yer qəhrəmanların əsas daxili problemləri və mənəvi şübhələri olur, burada insan özünü dərk etməyə, özündən parlaq bir şeyin varlığını tapmağa çalışır.

V.Sokolova görə: "melodramlar və komediyalar bədii kinonun əsasını qoydu və daha mürəkkəb janr formalarının yaradılması üçün əsas oldu". (Salmanov, 1980)

Psixoloji dram müəyyən bir janrdır ki, burada qəhrəmanın və ya qəhrəmanın əsas problemi xarici aləmlə münasibətin öyrənilməsi, qəhrəmanın düşdüyü zamanın təhlili olur. Dramda önə çıxan bu iki istiqamət baş qəhrəmanın psixoloji komponenti ilə sıx bağlıdır. İstənilən dramatik əsərin mərkəzində özünəməxsus xasiyyəti olan, özünəməxsus xarakteri ilə melodramlarda, dramlarda aydın şəkildə nümayiş etdirilən personaj dayanmalıdır.

Ədəbiyyatda psixoloji məqamlara tez-tez rast gəlinir. Ancaq psixologizm kimi bir fenomen çox yayğındır. Üstəlik, heç bir yaxşı yazılmış əsər onsuz keçə bilməz. Psixologiyasız nə personajların xarakterini açmaq, nə də onlar arasında etibarlı münasibətlər qurmaq, ya da bədii mətnin emosional abu-havasını yaratmaq mümkün deyil. Bir sözlə, psixologiyasız yaxşı ədəbiyyat ola bilməz.

Geniş mənada bu, personajların daxili aləminin, onların həm fərdi, həm də ictimai psixoloji problemlərinin əksidir. Bunlar seçim problemləri, vicdan əzabı, daxili münaqişələr, motivlərin toqquşması, şəxsiyyətlərarası münasibətlər problemləri və bu və ya digər şəkildə şəxsiyyət psixologiyası sahəsi ilə əlaqəli olan hər şeydir.

Amma psixoloji romandan fərqli olaraq, bu problemlər süjetin əsas katalizatoru deyil, xüsusi abu-hava, psixoloji abu-hava yaradır. Süjet başqa amillər əsasında qurulur. Baxmayaraq ki, təbii ki, qəhrəmanın onu müəyyən hərəkətlərə sövq edən xarici motivləri ilə psixologizm texnikası vasitəsilə üzə çıxan xarakteri arasında xətt çəkmək çətin ola bilər. Amma əgər personajların bütün yaşantıları,

düşüncələri, düşüncələri və mənəvi təlatümləri mətndən çıxarılıbsa və süjeti yenə də təkrar etmək mümkün olubsa, deməli əsər psixoloji romana aid deyil. Sadəcə olaraq yüksək psixologiya səviyyəsinə malikdir.

Ədəbiyyatdakı texnikalara nəzər salaq. Əsas psixoloji üsullar bunlardır:

- povest-kompozisiya formaları sistemi (müəllifin psixoloji hekayəsi, birinci şəxsin hekayəsi, məktublar, psixoloji təhlil);
- daxili monoloq;
- psixoloji təfərrüat;
- psixoloji şəkil;
- psixoloji mənzərə;
- xəyallar və görüntülər;
- ikiqat simvol;

Əsas stilistik dominantlardan biri kimi psixologizm özünü büruzə verir. Bir sıra Mordoviya nasirlərinin əsərlərində insanın daxili dünyası özünəməxsus forma alır. Q. Pinyasov, N. Mirskaya, İ. Kudaşkinin əsərlərində şərh və qiymətləndirmə, V. Mişanina, A. Tyapaeva, G. Petelina, V. Kizhnyaev və başqaları müəlliflərin fəthləri ifadə edilmişdir. Dərin psixoloji xarakterlər yaratmaq, bədii arenalın genişləndirilməsi üçün psixologizm əsaslı vasitəyə çevrilir.

N.Mirskayanın yaradıcılığında psixologizm xüsusi bir sənətkarlıq keyfiyyətinə çevrilir. Müəllif bütün vasitə və texnikalar sistemini tam, dərin və tam istiqamətləndirir, qəhrəmanların daxili aləminin ətraflı açılması üçün psixologizmin ifadə gücündən məharətlə istifadə etmişdir. Öz ideoloji və bədii konsepsiyasını yazıçı qadın obrazları vasitəsilə təcəssüm etdirir. Bu Antonina, Katerina, Verochka, Lera, Raechka, Stepanida, Klavdiya Akimovna kimi qadın personajlardır. Müəllif onların bir çoxuna geniş həyat təcrübəsi bəxş edir. Bəziləri isə yenicə yaşamağa başlayır. Hər kəsin daxili münaqişələri fərqlidir. Amma hər halda mənəvi hər hansı bir qəhrəmanın dünyası müxtəlif emosional kəskin vəziyyətlərin bolluğu ilə hallar, dramatik anlar doymuşdur.

Psixologizmə, bədii əsərlərin psixoloji təhlilinə elmi-nəzəri baxış Azərbaycan ədiblərindən: B.Nəbiyev, Y.Qarayev, X.Əlimirzəyev, M.Adilov, Yəhya Seyidov, C.Nağıyev, A.Nəbiyev, A.Dadaşov, N.Şəmsizadə, M.İmanov, A.Səfiyev, M.Qasımlı, Q.Bayramov, M.Əlizadə, B.Əhmədov, Elçin, Ə.Ələkbərli, V.Verdiyev(Sultanlı), Ə.Əhmədov və başqaları bu problemə diqqət yönəltmişlər.

Psixologizmə, psixoloji təhlilə, psixolji yanaşmanın ədəbiyyatımızda tutduğu mövqeyinə, psixologizmin estetik qavranılmasına daha çox önəm verən Xalid Əlimirzəyev haqlı olaraq qeyd edir ki, "psixoloji hal, psixoloji təhlil kənarda deyil, elə məhz bədii əsərin daxilində özünü ifadə edən idrakın, mürəkkəb psixoloji təfəkkürün inkişafından əmələ gələn əhəmiyyətli keyfiyyət dəyişikliyindən, onun yeni rəng çalarları ilə təsvir və ifadəsindən başlanır."(Əlimirzəyev, 1984)

Bunu alim bu şəkildə yazır: "Psixoloji xüsusiyyət, ədəbiyyatımızda yeni bir anlayış deyildir... Onun ədəbiyyatımızda dərin tarixi kökləri və özünəməxsus ənənələri vardır. Söhbət bədii yaradıcılıqda psixoloji anlayışdan daha çox onun məzmununda, mahiyyətində baş verən ciddi keyfiyyət dəyişikliklərindən, ifadə və təsvir çalarların yeni rənglərlə, boyalarla zənginləşməsindən gedir. Bu dəyişiklik, hər şeydən əvvəl, zamanın ruhu ilə adamlarımızın idrakında, təfəkküründə, mənəvi aləmində baş verən mürəkkəb psixoloji təkamüllə bağlıdır... psixoloji təəssürat sənət əsərlərinə kənardan gətirilib daxil edilmiş bir xüsusiyyət deyildir. O, obrazların mənəvi-psixoloji aləminin real təzahürü, hadisələrin, bütünlükdə bədii təsvirin daxili keyfiyyəti və sənətkarlığın əsas məziyyətlərindən biri kimi meydana çıxır" (Əlimirzəyev, 1984) Bədii əsər, bədii ədəbiyyat nümunələri, söz sənəti duyğular ailəmini, hisləri, düşüncələri bədii formada analiz edərək fikirlərin, duyğuların, davranışların, düşüncələri bədii məhsul kimi meydana çıxmasına səbəb olur. Bu zaman psixologizm, psixoloji təhlil bədii əsərin bütöv məzmun və mahiyəti açıqlayır.

Psixologizm və ya psixoloji analiz, bədii əsər üçün ən vacib və öndə dayanan keyfiyyətdir. Bədii əsərin aqibəti oradakı xarakterlərin daxili dünyasından doğan duyğuların, hiss və həyacanların nə qədər inandıcı olmasından, təsirediciliyindən və təbiiliyindən aslıdır. Qəhrəmanların ruhunu, əsərin canını hərəkətə gətirən oradakı psixoloji vəziyyət, onların hiss etdikləridir ki, bu da psixoloji təhlilin, psixolojizmin vəzifəsi kimi üzərinə düşür. Nəticə olaraq onu demək mümkündür ki, bədii əsərdə oxucuya təqdim olunan personajların psixoloji vəziyyəti, hiss-həyəcanları, rəftarı, düşüncələri oxucu tərəfindən yadda qalmırsa, o zaman bədii əsərin dövrlərin süzgəncindən keçib sənət nümunəsi olaraq ədəbiyyatda qalmasından söhbət edilə bilməz.

Psixoloji hallar olmasa, psixoloji təhlilsiz əsər quru odun, bir-birinə bağlı olmayan, cansız, ölü söz yığımından ibarət olacaqdır. Ədəbiyyat söz sənətidir, müəyyən psixoloji vəziyyətdən yaranmış daxili dünyanın, hiss, həyacanların, düşüncələrin toxunuşundan bir bütöv əmələ gətirir.

Psixologizmdə ən başlıcası insana münasibətdir. Psixologizm insana münasibətdə sosial və fərdi yanaşmanı özündə ehtiva edir.

Tarix boyunca söz sənəti ilə bərabər doğulan psixologizm bütövlükdə insanın daxili dünyasını öyrənir. Bu cəhətdən psixologizm sənətin mahiyyətini aşkara çıxarır.

Qnoseoloji məna ifadə edən psixologizm ictimai şüurun estetik prinsipi kimi onun tərkib hissəsini təşkil edir.

Psixologizmlə obrazların mənəvi-fəlsəfi axtarışları arasındakı əlaqə bədii əsərin ideya-mənəvi problematikasında əsaslı yer tutur. Bu əsaslı yeri Yesin, Straxov, Boçaryov və digər alimlər tərəfindən araşdırılıb, elmi-nəzəri mülahizələr irəli sürülmüşdür. Eyni zamanda Yesin psixologizmi obrazlı emosional təsir vasitəsi kimi qiymətləndirir. Müəllif subyetki ilə birləşən psixoloji təsvir obrazın daxili dünyasının bütün detallarını əhatə edir. Çox zaman yazıçı obrazın əhval-ruhiyyəsini təbiətin təsviri ilə verir, bununla da sanki qəlbin "peyzajı"nı qələmə alır. Bu da təsadüfü deyil ki, bir sıra tədqiqatçılar bədii əsərdə xarakterin daxili dünyasının açılmasında və dramatikləşdirilmədə təbiət təsvirinin xüsusi rolu olduğunu qeyd edirlər.

Psixologizmin metodlarından biri bədii detaldır. Xarici detallar (portret, mənzərə) psixoloji təsvir üçün istifadə olunmuşdur. Portret detalları "solğun", "qızarmış" və s. psixoloji halları birbaşa çatdırır.

Xüsusi bədii inkişaf vasitələr və üsullar obrazın gündəlik həyatının real təsvir formasını yaradır, personajların xarakterini açır. Dərinliyi ifşa edən dominant vasitə personajların hissləri, psixoloji durumu, müəllif dialoqu seçir. Onların ürəklərində toplanmış ən gizli şeyi- öz qəhrəmanlarının nitqini olduqca təsəvvürlü və ifadəli yaradır yazıçı.

Dram əsərlərində kəskin münaqişəli vəziyyətlər və ya açıq toqquşmalar özünü xüsusi formada göstərir, amma kompozisiya quruluşunun mühüm prinsipi hər birinə ayrıca fəsil ayrılmasıdır, qəhrəman - müəllifə personajların psixoloji vəziyyətini tam şəkildə açmağa imkan verir, onların sadələşdirilmiş şərhindən çəkinir.

İ.Əfəndiyevin dərin psixologizm, obrazların daxili aləmi, saf sevgi, atalıq, vəfa kimi ünsürləri özündə birləşdirən "Sən həmişə mənimləsən", yaxud "Boy çiçəyi " dramı bədii hislərin təcəssümü ilə diqqət çəkməkdədir. "Milli ədəbiyyata, yaradıcılığa yeni üslub xüsusiyyəti, keyfiyyəti ilə qədəm qoyan İlyas Əfəndiyev romantik nəsr əsərləri ilə bərabər insan ruhunu oxşayan, onu təlatümə gətirən mürəkkəb taleli obrazların, səhnə təcəssümünü verən pyeslər də yazmışdır. Ancaq maraqlıdır ki, bu əsərlərin məna və məntiqini özündə ehtiva edən sənətkarın bir əsəri, yəni "Sən həmişə mənimləsən" pyesi istər müəllifin dramaturji yaradıcılığında, istərsə də müasir Azərbaycan dramaturgiyasında lirik-romantik psixologizmin nümunəsi kimi maraq doğurur." (Turaboğlu, 2001)

"N a r g i l ə. Bilirəm... Oğlunuz kanikula gələndə hər səhər ondan əvvəl durub çay qoyurdunuz. Qəlyanaltı hazırlayırdınız...

H ə s ə n z a d ə. Elədir...

N a r g i l ə. Mən saatlarla o tək pəncərənin qabağında oturub, sizə tamaşa edirdim... Siz isə, bundan xəbəriniz yox idi.

H ə s ə n z a d ə. Xəbərim var idi.

N a r g i l ə (*sevinclə)*. Doğrudan?.. Amma elə bilirdim siz bir dəfə də olsun məni görməmisiniz...

H ə s ə n z a d ə. Nə üçün... Qonşu deyilik...

N a r g i l ə (*məyus halda*). Elədir...qonşuyuq... Həmişə sizin oğlunuz gələndə mən sevinirdim.

H ə s ə n z a d ə. Doğrudanmı?

N a r g i l ə. Bəli. O gələndə sizin kefiniz yaxşı olurdu. Danışırdınız, gülürdünüz... O olmayanda isə, saatlarla bu həsir kresloda oturub elə hey papiros çəkirdiniz. Hey düşünürdünüz..." (Əfəndiyev, 2005)

Müəllif üçün qəhrəmanın ruhunda heç bir sirr yoxdur - o, onun haqqında hər şeyi bilir, daxili prosesləri təfərrüatı ilə izləyə bilər, qəhrəmanın özünü təhlilini şərh edə bilər, qəhrəmanın özünün fərqinə varmadığı və ya etdiyi zehni hərəkətlər haqqında danışa bilər.

Bədii əsərin dili və ya səhnə dili bildiyimiz kimi psixologizmi aydınlaşdıran üsullardan biridir. Lirik- psixologizmin yaranmasında bədii dil qəhrəmanın oxucu tərəfindən qavranılmasına yardımcı olan vasitələrdəndir. Müəllif bədii əsərdə qəhrəmanların daxili aləmini, psixoloji durumunu,

davranmışlarını, hərəkətlərini, danışıq tərzini qəhrəmanın portetini onun xarakterinə uyğun olan söz və ifadələlər oxucunun təsəvüründə canlandırır. “Bədii dil böyük tarixi inkişaf prosesində cilalanmış və formalaşmış bədii vasitələri sisteminə malik obrazlı dildir. O, insanlar arasında ünsiyyət yaradan, müəyyən bir fikri başqasına çatdıran, insanların dərdlərini, sevinclərini, əzablarını bildirən, onların ünsiyyətinin, fikirlərinin, keçirdikləri bütün ruhi vəziyyətlərinin özünü yaratmaq vasitəsidir. ... sənətkar öz qəhrəmanlarının əzablarını sadəcə olaraq bildirmir, o, bu əzabların özünü bədii nitq formasında yaradır” (Elçin, 1999). Zənnimizcə, bu çox haqlı münasibətdir. Bədii dil, personajın dili də psixologizmin açılması üçün bir vasitədir.

Psixologizm, daxili aləmi təsvir etmək üçün xarici detalları işə salır. Xarici detallar psixoloji prosesləri müşayiət edir və çərçivəyə salır. Obyekt və hadisələr personajların düşüncə axınına daxil olur, düşüncəni stimullaşdırır, qavranılır və emosional olaraq yaşanır.

Psixoloji təfərrüatlar təkcə xarici aləmin obyektləri deyil, həm də hadisələr, hərəkətlər, xarici nitq ola bilər. Psixoloji təfərrüat qəhrəmanın daxili vəziyyətini təhrik edir, əhval-ruhiyyəsini formalaşdırır, düşüncəsinə təsir göstərir. Xarici psixoloji detallara psixoloji portret və mənzərə daxildir. Hər portret xarakterikdir, lakin hər portret psixoloji deyil. Faktiki psixoloji portreti portret təsvirinin digər növlərindən fərqləndirmək lazımdır. Yazıçı sadəcə xarakterdən daha çox maraq göstərir personajlara və hər şeydən əvvəl onların daxili komponentinə: düşüncələrə, təcrübələrə, hisslər. Psixoloji təhlilin üsul və vasitələrinin yaradıcı şəkildə həyata keçirilməsinə imkan verdi. müəllif öz qəhrəmanlarını oxuculara özünəməxsusluğu olan insanlar kimi təqdim edir: daxili görünüş, hekayədəki insan personajlarının orijinal obrazını tapmaq, özəlliyi də ondan ibarətdir ki, “müəllif lazımsızlara yol vermir mənəviyyatlandırmaqda vəsvəsə, bu və ya digər hərəkətə öz qiymətini vermir (bu oxucunun özünə qalıb), amma eyni zamanda onun mövqeyi kifayət qədər aydındır, yaxşı fəaliyyətin inkişafının özü ilə inkişaf edir" (Salmanov, 1980)

**TƏDQIQAT METODU**

Dram əsərlərində psixologizmi tədqiq edərkən, əsasən, müqayisəli metoddan istifadə olunmuşdur.

**NƏTICƏ**

Ədəbiyyatda psixologizm mədəniyyətin özünəməxsus insan şəxsiyyətini dəyər kimi tanıdığı zaman yaranır. İnsanın dəyəri onun sosial, ictimai, peşəkar mövqeyi ilə tamamilə müəyyən olunduğu, dünyaya şəxsi baxışı nəzərə alınmadığı və hətta mövcud olmadığı ehtimal edilən şəraitdə bu mümkün deyil. Çünki cəmiyyətin ideoloji-mənəvi həyatı tamamilə qeyd-şərtsiz və qüsursuz normalar sistemi (din, kilsə) tərəfindən idarə olunur. Başqa sözlə, mədəniyyətlərdə avtoritarizm prinsiplərinə əsaslanan psixologizm yoxdur.

Psixoloji təhlil daxili aləmin mənzərəsini ümumiləşdirir və içindəki əsas şeyi vurğulayır. Qəhrəman özü haqqında danışandan daha az şey bilir və hisslərin və düşüncələrin birləşməsini bu qədər aydın və dəqiq ifadə etməyi bilmir. Psixoloji təhlilin əsas funksiyası kifayət qədər mürəkkəb psixoloji vəziyyətlərin təhlilidir. Başqa bir işdə təcrübə xülasə şəklində göstərilə bilər. Bu isə psixoloji təhlillə qarışdırılmamalı olan qeyri-psixoloji yazıya xasdır.

**ƏDƏBIYYAT SIYAHISI**

1. Əlimirzəyev X. (1984) Bədii həqiqət uğrunda. Bakı, (244)
2. Əfəndiyev İ. (2005) Seçilmiş əsərləri. III cild. Bakı, (412)
3. Elçin. (1999) Tənqid və nəsr. Bakı, (216)
4. Turaboğlu X. (2001) “Sən həmişə mənimləsən”dən “Sən həmişə mənimləsən”ə qədər // Azərbaycan, (186-187)
5. Salmanov İ. (1980) Psixoloji dram, psixoloji portret və dram dili // Ulduz, №9,

# TÜRK XALQLARI ROMANININ YARANMASI VƏ İNKİŞAF MEYİLLƏRİ

**MEHMAN HƏSƏNLİ**
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
*mehman.hesen@gmail.com*
BAKI, AZƏRBAYCAN

**XÜLASƏ**

Türk xalqları vahid etnos mərhələsindən sonra ayrı-ayrı boylar şəklində, daha sonra xalqlar və millətlər formasında təşkilatlandıqdan, müxtəlif şəkildə dövlət quruculuqlarında iştirak etdiklərindən onları birləşdirən təməl dəyərlərlə birlikdə, kifayət qədər bir-birindən fərqli, özünəməxsus keyfiyyətlə də qazanmışlar. İctimai-mədəni, eləcə də siyasi mühitin diqtəsi ilə türk xalqlarında xüsusilə son iki əsrdə formalaşan özünəməxsus fərqliliklər hər hansı janr və ya zaman çərçivəsində bir problem, istiqamət və mövzu çərçivəsində tədqiq etməyi çətinləşdirmişdir. Buna baxmayaraq, məkan həlqələri kimi götürdüyümüz Türkiyə, SSRİ-nin tərkibində olan türk xalqları, Şərqi Türküstan qlobal və lokal proseslərin təsiri ilə ictimai-mədəni və siyasi mühitdə silkələnmələr olmuş, bu proses ədəbiyyatda, o cümlədən romançılıqda üslub və məzmun dəyişmələrinə səbəb olmuşdur. Məqalədə qeyd olunan üç məkan həlqəsində türk xalqlarının romançılığının yaranması və ümumi inkişaf dinamikası tədqiq edilmişdir. Osmanlıda Tənzimat hərəkatının başlanması ilə yeniləşmə prosesləri meydana çıxmış və roman bu ənənəni nəticəsində XIX əsrin ikinci yarısında meydana çıxmışdır. Qafqaz və Orta Asiyanın Sovet imperiyasının əsarəti altına düşməsi və tətbiq edilən sərt ideoloji siyasət imperiyanın daxilində yaşayan türk xalqlarının ictimai-mədəni həyatlarında, o cümlədən ədəbiyyatlarında oxşar proseslərin yaranmasına səbəb olmuşdur. Buna uyğun olaraq, bi geniş coğrafiyada roman ənənəsi maarifçi fikrin inkişaf tendensiyasına uyğun şəkildə XIX əsrin sonu, XX əsrin əvvəllərində yaranmışdır. Aradşırmada həm Osmanlıda, həm də Qafqaz və Orta Asiyada roman ənənəsinin yaranması və inkişaf tendensiyaları tədqiqata cəlb edilmişdir. Şərqi Türküstanda yaşayan uyğurların 1976-cı ildən sonra yaranmağa başlayan və 1980-ci illərdə əsasən tarixi xronika şəklində geniş vüsət alan romançılığı da tədqiqat obyekti kimi seçilmişdir.

**AÇAR SÖZLƏR: Türk xalqları, roman, maarifçilik, xıx əsr, milli fikir**

Considering that Turkic peoples, after the stage of a single ethnos, organized themselves as separate tribes and then as peoples and nations and they participated in state building in different ways, together with the basic values that unite them, they acquired a unique quality that is quite different from each other. Due to the behests of the socio-cultural as well as political environment, the peculiar differences formed among the Turkish people, especially in the last two centuries, have made it difficult to study the literary examples created by them within the problem, direction and theme in any genre or time frame. Despite all this, Turkey, Turkic peoples of the USSR, East Turkestan, which we took as spatial circles, were shaken in social, cultural and political environment by reason of the influence of global and local processes, and this process caused changes in the style and content of literature, including novels. In the three spatial circles mentioned in the article, the emergence and general dynamics of Turkish novels are studied in duly manner. With the beginning of the Tanzimat movement, renewal processes began in the Ottoman Empire, and as a result of this tradition, the novel genre emerged in the second half of the nineteenth century. The subordination of the Caucasus and Central Asia to the Soviet Empire and the stern ideological policy pursued led to the emergence of similar processes in the social and cultural life of the Turkic peoples living within the empire, including their literature. Accordingly, the novel tradition in broad geography originated in the late 19th and early 20th centuries in line with the trend of enlightened thought. The study involved the trends of the emergence and development of the novel tradition both in the Ottoman Empire and in the Caucasus and Central Asia. The novel writing of the Uyghurs living in East Turkestan, which began to emerge after 1976 and spread in the 1980s mainly in the form of historical chronicles, was also chosen as the object of the study.

**KEYWORDS: Turkısh people, novel, enlıghtenment, xıx century, natıonal ıdea**

## GIRIŞ

Türk xalqları tarixən geniş coğrafiyada yaşadıqlarına görə minilliklər öncə vahid etnosdan ayrı-ayrı soylara ayrılma prosesi getmişdir. Bu, təbii olaraq, coğrafi amillə birbaşa bağlıydı. Köçərək geniş ərazilərə səpələnən türk boylarının zamanla özünəməxsus keyfiyyətləri formalaşmış, dili, adət-ənənələrində ümumi ilə yanaşı fərdi keyfiyyətlər də qazanılmışdır. Mahmud Kaşğarinin "Divani lüğət-it türk" əsərində müxtəlif türk xalqlarının adları çəkilir. "Kitabi Dədə Qorqud" dastanlarında da türk boyları arasında münasibətlərdən bəhs edilimişdir. Türk xalqları harada yaşamasından asılı olmayaraq, zəngin mifoloji təfəkkür və ilkin şifahi bədii təfəkkür arxetipik yaddaşa çevrilərək birləşdirici faktor kimi çıxış etmişdir. Məhz həmin arxetipik yaddaşın öz funksionallığını daim qoruyub saxlaması nəticəsində bu gün özünəməxsus coğrafiyası, dilləri, mədəniyyətləri, dövlətləri, muxtariyyətləri və ya hər hansı bir formada birlikləri olan ortaq türk xalqları anlayışından danışırıq.

## TƏDQIQAT METODU

Xüsusilə, XVIII əsrin sonları XIX əsrdə Qərbdə geniş vüsət alan modernləşmə, müasir mənada dövlət və millət anlayışlarının yaranması fonunda türk xalqlarının özünüifadəsi maraq doğurmaqdaydı. Tarixən zəngin və qüdrətli dövlətçilik ənənələri ilə seçilən türk xalqlarının bu yeni modernləşmə çağında vəziyyəti heç də ürəkaçan deyildi. Osmanlı dövlətinin böyük ərazilərini itirərək modernləşmədən geri qalması, Orta Asiya və Qafqazda yaşayan türk xalqlarının isə Çar Rusiyasının işğalı altına düşməsi çağın türk xalqları üçün acı reallığını ifadə edən mənzərə idi. Buna baxmayaraq, XIX əsrdə baş verən modernləşmə hərəkatı türk xalqlarını da əhatə etmiş, həmişə olduğu kimi görkəmli ədəbi-bədii şəxsiyyətlər baş verənlərin fonunda gələcək üçün aydın bir inkişaf ideologiyasını yarada bildilər. Osmanlıda başlayan Tənzimat hərəkatı (1839) böyük simaları yeni maarifçilik hərəkatının əsasını qoydu. Türkiyə cəmiyyətinin modernləşməsi, yeniləşməsi məhz Tənzimatla başladı. "Tənzimatda təqlid olunan şey, əsaslardan və metodlardan çox praktik nəticələndi. Tənzimat Nizami-Cədidin (yeni nizamın) davamıdır....Tənzimat axımı sonra bir az daha incələşərək düşünmək, düşüncəsini ifadə etmək, düşüncəsini yazmaq tərzlərinə də təsir göstərdi. Bu hadisə, müsəlman Osmanlı sosial həyatında dünyaya baxışın dəyişilməyə başlaması demək idi" (Akçura, 2010).

İbrahim Şinasi, Ziya Paşa, Namiq Kamal, Əhməd Midhət Əfəndi, Şəmsəddin Sami, Əhməd Vefiq Paşa, Rəcaizadə Mahmud Əkrəm, Əbdülhəq Hamid kimi böyük şəxsiyyətlər Türkiyə ədəbiyyatının, ictimai fikir tarixinin inkişafında müstəsna rol oynadılar. İbrahim Şinasinin "Şairin evlənməsi" (1959) əsəri ilə Türkiyə ədəbiyyatında dramaturgiyanın əsası qoyuldu. Türkiyə romanı da Tənzimat dövründə yaranıb inkişaf etməyə başladı. Həmin dövrdə yazılmış Şəmsəddin Saminin "Təəşşüqi-Tələt və Fitnət" (1972), Əhmət Midhətin "Yeniçərilər" (1972), "Həsən Məllah" (1875), "Hüseyn Fəllah" (1875, "Fəlatun bəylə Rakım əfəndi" (1875), Namiq Kamalın "İntibah" (1876), "Cəzmi" (1880), Sami Paşazadənin "Sərgüzəşt" (1887), Rəcaizadə Mahmud Əkrəmin "Araba sevdası" (1889), Nazim Nəbizadənin ""Qarapipik" (1890), Xalid Ziya Uşaqlıgilin "Eşqi Məmnu" (1899) əsərləri ilə Türkiyə romanı yaranıb inkişaf etmişdir.

Osmanlıya qarşı Qərbin məkrli planları genişlənərək XX əsrin əvvəllərində isə sıxışdırılaraq dünya xəritəsindən silinməsi çabalarına qədər gedib çıxmışdı. Tənzimatla başlanan maarifçilik XX əsrin əvvəllərində böyük ictimai fikir axınlarının və daha sonra hərbi-siyasi müstəvidə istiqlal uğrunda savaşın başlanmasına səbəb oldu. Qazi Mustafa Kamal Atatürkün rəhbərliyi ilə Qərbin bütün birləşmiş qüvvələrini darmadağın edən türk xalqı Türkiyə Cümhuriyyətini qurdu. Cümhuriyyətin böyük ənənələri Türkiyə ədəbiyyatına da öz təsirini göstərmişdi. Tədqiqat işində zaman çərçivəsi kimi götürdüyümüz 1980-ci illərə baxdığımızda məhz Türkiyənin müstəqilliyi, zəngin dövlətçilik ənənəsi bu dövrün romançılığında öz ifadəsini tapmışdır. 1960-cı illərə qədər realist ənənə ilə inkişaf etmiş Türkiyə romanında Əhməd Həmdi Tanpınarın yaradıcılığı ilə dəyişmə prosesləri başlayır. Türkiyədə baş verən çevrilişlərin nəticəsində cəmiyyətdə baş verən çalxalanmalar ədəbiyyatda, o cümlədən romanda öz ifadəsini tapırdı. Oğuz Atayın "Tutunamayanlar" əsəri yeni Türkiyə romanının manifesti xarakteri qazanır. 1980-ci illər Türkiyə romanı ciddi modernist əsaslarla başlayaraq 1990-cı illərin əvvəllərində eyni şəkildə postmodern təməllər üzrə inkişafını davam etdirir. Qısa müddətdə, on il ilin içərisində Türkiyə romanında ciddi transformasiya prosesləri baş verdi. Təkcə bu zaman aralığında deyil, ümumilikdə Türkiyə ədəbiyyatının dünya miqyasında ən böyük romançısı Orxan Pamuk məhz bu dövrdə yaradıcılığa ("Cövdət bəy və oğulları" romanı) başlayır. Orxan Pamuk modernlə postmodern arasındakı keçidi öz yaradıcılığında əks etdirən ən böyük yazıçılardan biridir.

Mehmet Əroğlunun, Əhməd Altanın romanları, Bilgə Karasunun "Gecə" əsəri ilə Türkiyə romançılığında kafkaesk üslubun ciddi nümunələri meydana çıxır. Lətifə Tekinin "Sevgili arsız ölüm" romanı ilə Türkiyə ədəbiyyatında magik realist roman nümunəsi yaranır. Türkiyə romanı xüsusilə XX əsrdəki özünün zəngin inkişaf tarixində ciddi yenilənmə dövrünü 1980-ci illərdə yaşayır.

XIX əsrin əvvəllərindən etibarən Qafqazı və Orta Asiyanı işğal etməyə başlayan Çar Rusiyası imperiyanın prinsiplərinə uyğun olaraq zəbt etdiyi torpaqlarda müstəmləkəçi siyasət yürütmüşdür. Təbii ki, onların əsas məqsədi asan idarə olunan rəiyyət formalaşdırmaqdan ibarət idi. Yerli əhalinin təhsil alması ilə bağlı məsələdə Çar rəhbərliyinə təqdim olunan proqramlarda əsas iki xətt mövcud idi. Çar ideoloqlarının bir qismi belə fikirləşirdilər ki, yerli xalqlara təhsil verməyə gərək yoxdur. Savadsız xalqı daha asan idarə etmək olar. İkinci qism isə məhdud şəkildə savadlanmanın tərəfdarı idilər. Türküstan general qubernatoru Kuropatkin rəhbərliyə məktublarının birində yazırdı: "Biz yerli xalqı, tərəqqidə, məktəbdə rus həyatından 50 il geridə tutduq" (Açık, 2002).

Kuropatkinin bu fikri Çar imperiyasının yerli xalqlara qarşı yürüdülən işğalçı imperiya siyasətinin mahiyyətini açıqlamış olur. Eyni fikir başqa bir imperiya rəhbər-lərindən biri olan M.Muropiyev tərəfindən belə ifadə olunmuşdur: "Müsəlmanların təhsilində əsas məqsəd onları ruslaşdırmaqdır... İkinci prinsip isə İslamı pozmaqdır" (Alimova, 2000).

Çar rəhbərliyinin yerli xalqlara qarşı ideoloji planları heç də öz düşündükləri kimi nəticə vermədi. Mirzə Fətəli Axundzadənin, Çokan Vəlixanovun çiyinlərinə çar paqonlarını taxmaqla istədikləri idarəetmə modeli qurmağa çalışan imperiya rəhbərliyi tam əksini gördü. Əsası Mirzə Fətəli Axundzadə tərəfindən qoyulan milli maarifçilik, çağdaşlıq hərəkatı sonradan Azərbaycanın və digər Orta Asiyada yaşayan türk xalqla-rının həyatında mühüm başlanğıc oldu. Türk xalqlarının böyük maarifçi ziyalı nəsli yetişdi. İmperiyanın "parçala, hökm sür" ideologiyasına qarşı İsmayıl bəy Qaspiralı "Dildə, fikirdə və işdə birlik" tezisini irəli sürdü. XIX əsrin 80-ci illərində Tatarıstan-da "Tərcüman" qəzeti və "üsuli-cədid" məktəbləri ilə Qaspiralı əslində rus başbilənlə-rinə alternativ proyekt ortaya qoymağı bacardı.

Maarifçilik sahəsində ən böyük işi sözsüz ki, mətbuat gördü. "Əkinçi", "Tərcü-man"la başlayan milli mətbuat "Molla Nəsrəddin", "Füyuzat", "Türküstan" və digər mətbu nəşrlərlə inkişaf etdi. Dövrün ziyalıları əvvəlcə mədəni muxtariyyət sonra ərazi muxtariyyəti və nəhayət, çağdaş dünya modelində müstəqil dövlətin qurulması fikrini irəli sürdülər və bu fikri uğurla gerçəkləşdirməyi bacardılar.

Çar Rusiyası türk xalqlarının ideya və fikirlərinə nifrətlə yanaşır və mümkün qədər hərəkatı boğmağa çalışırdı. Həbslər, sürgünlər, qətllər milli müqaviməti nəinki zəiflətdi, əksinə, daha da gücləndirdi.

İmperiyanın çöküşü labüd idi və belə olan təqdirdə ortaya bir sıra qüvvələr çıx-dı. Bu mübarizədə bolşeviklərin qalib gəlməsi və elə ilk başlanğıcda çar II Nikolayın ailə üzvlərinin qətli gələcək qəddarlıqlardan xəbər verirdi. Yerli türk xalqları bolşeviklərin əsas məramının fərqində idilər. Görkəmli özbək ədibi Əbdürrauf Fitrət bolşe-viklərin qalib gəlməsi ilə bağlı məqaləsində yazırdı: "Yeni bəla gəldi, bolşevik bəlası" (Açık, 2002).

Bolşeviklər yerli xalqların müstəqillik fikrini heç bir vəchlə qəbul etmirdilər. Terror hesabına olsa da, Qafqazda Azərbaycan Xalq Cumhuriyyətini, Orta Asiyada müstəqilləşən quruluşları işğal yolu ilə məhv etdilər. 20-ci illərdə müstəqil dövlət uğrunda mübarizə aparanlara qarşı sürgün, həbs və qətllərə başlandı. 30-cu illərdə isə ic-timai-siyasi və ədəbi həyatın bütün sferalarını əhatə edən təzyiqlər vüsət aldı. Bu prosesin zirvə nöqtəsini 1937-1938-ci illərdə törədilən repressiya təşkil etmişdir.

Çar Rusiyası işğalına məruz qalan Azərbaycanda maarifçi realist hərəkat, onun ardınca tənqidi realizm və romantizm ciddi əsaslarla yaranıb inkişaf etmişdir. Mirzə Fətəli Axundzadə fenomeni təkcə Azərbaycan maarifçi düşüncəsinin inkişafında deyil, geniş mənada türk-müsəlman aləmində müstəsna rola malikdir. Mütəfəkkir yazıçı rus dili vasitəsilə oxuduğu ciddi Qərb elmi mənbələrindən öz məqalələrində, məktublarında, bədii irsində böyük məharətlə yararlanmış, nəhayət Azərbaycan dramaturgiyasının (1851-1855) və romanın (povest də adlandırılır) "Aldanmış Kəvakib" (1857) əsasını qoymuşdur. "Təhlillər göstərir ki, M.F.Axundzadənin Avropaya və avropalılara münasibəti məsələsi onun yaradıcılığında müxtəlif mərhələlərdən keçmişdir. İlkin mərhələdə böyük ədib sadəcə bir avropalının bədii surətini yaradıb, onu oxucuya (tamaşaçıya) təqdim etdiyi halda, o, sonralar Avropanı bütün parametləri ilə göstərməyə çalışmışdır" (Şamıoğlu, 2016).

XX əsrdə, xüsusilə 70 illik sovet dövründə Azərbaycan romanı böyük inkişaf yolu keçmişdir. Sosialist realizminin ədəbiyyat üçün sərt senzura, qəlib tətbiq etdiyi 1930-1940-cı illərdə də Azərbaycan nəsrində üslub və məzmun baxımından maraqlı roman nümunələri meydana gəlmişdir. Mir Cəlalın "Bir gəncin manifesti", Əbülhəsənin "Yoxuşlar", Məmməd Səid Ordubadinin "Dumanlı Təbriz" kimi monumental əsərləri bu dövrdə yaranmışdır. "Sovet dövrü Azərbaycan ədəbiyyatı kökləri etibarilə XX əsrin əvvəllərinin ədəbiyyatı, inkişaf perspektivlərinə görə isə gələcək müstəqillik dövrü ədəbiyyatı ilə səsləşir. Bu, hakim ideologiya çərçivəsində də əsl böyük ədəbiyyat yaratmağın mümkünlüyünün isbatıdır. Belə çətin şəraitdə milli ədəbiyyatın davamlı ənənələrinin dayanıqlı inkişafını təmin edən ədəbiyyat etalonudur. Sovet dövrü Azərbaycan ədəbiyyatı sosializm quruluşundan əvvəlki milli ruhlu ədəbiyyatla özündən sonrakı istiqlal ədəbiyyatı arasında körpüdür" (Həbibbəyli, 2019).

1920-ci il sovet işğalından sonra Azərbaycanın böyük bir ziyalı nəsli mühacirətə getməyə, Türkiyə və Avropanın müxtəlif ölklərində vətən həsrətiylə yaşamağa məhkum oldular. Mühacirətdə Azərbaycan ədəbiyyatının parlaq nümunələri yarandı. Qurban Səidin oxucu kütləsi tərəfindən maraqla qarşılanan "Əli və Nino" əsəri 33 dilə tərcümə olunaraq, dünyanın 66 ölkəsində nəşr olunan , həm forması, həm də məzmunu etibarilə Azərbaycan romanının parlaq nümunəsidir. "XIX əsr ədəbiyyatına hakim olan baş qəhrəman romanları kimi "Əli və Nino"nun qəhrəmanı da Don Kixot, Verter, Roskolnikov kimi güclü, yadda qalan, təsir göstərən, oxucu üzərində özünəməxsus iz qoyan qəhrəmandır" (Aras, 2020).

1960-cı illərdə özünün yeni inkişaf xəttini müəyyən edən Azərbaycan romanı 1980-ci illərdə, müstəqillik öncəsində çoxxətli inkişaf mərhələsinə qədəm qoydu. Tarixi şüurun bərpası, mifoloji yaddaş, repressiya və sovet quruluşunun idarəetməsində yarıtmazlıqlar kimi məsələlər bu dövr Azərbaycan romanının başlıca problematikasını müəyyən edirdi.

Dünya ədəbiyyatında romanın janr olaraq geniş vüsət alması XIX əsrin realizm ilə bağlıydı. Eyni zamanda türk xalqları arasında da roman maarifçi realizimin inkişafına adekvat olaraq yaranırdı. Bu baxımdan İsmayıl bəy Qaspiralının vətəni olan və onun rəhbərliyi ilə cədidçiliyin yarandığı Tatarıstanda roman ənənəsi XIX əsrin ikinci yarısında (Musa Akeqetin "Hüsaməddim molla"(1986) əsəri) yaranmışdır. Sovet dövründə sosrealizm prinsipləri çərçivəsində inkişaf edən tatar romanında 1980-ci illərdə milli kimlik uğrunda mübarizə ön plana keçməyə başlayır.

Orta Asiyanın əksər türk xalqlarında isə roman sovetlərin qurulmasından sonra yaranmışdır. Qazax, qırğız, özbək və türkmən ədəbiyyatında roman 1920-ci illərdən sonra yaranıb inkişaf etmişdir. Tədqiqata cəlb etdiyimiz uyğur romanı isə daha gec, 1970-ci illərdə baş verən Mao inqilabından sonra tarixi zəmindən yaranıb inkişaf etmişdir.

Təbii ki, SSRİ-nin qurulması, imperiyanın Orta Asiya və Qafqazı işğal etməsi türk xalqları üçün 70 illik müstəmləkə dövrünün başlanğıcı oldu. Sosial baxımından müəyyən mütərəqqi tərəflərinin olmasına rəğmən, ümumilikdə bu işğal türk xalqlarının inkişafına mənfi təsir göstərdi. Ədəbiyyat üzərində 1930-cu illərdən etibarən tətbiq edilən sərt senzura, qəlibləşmə onun dünyada gedən proseslərlə əlaqəsini qırdı, dialoq qurmaq imkanlarından məhrum etdi. Sovet imperiyasının tərkibində yaşayan türk xalqlarının və onların ədəbiyyatlarının inkişaf stixiyasında müəyyən bənzərliklər vardır. Stalinin ölümü ilə başlayan yumşalma nəticəsində ədəbiyyat sərt qəlibi qismən də olsa dağıda bildi. Dünya ədəbiyyatı ilə nəfəsliklə də olsa dialoq qurmağa başladı.

1960-cı illərdən etibarən başlayan bu dalğa 1980-ci illərdə yeni məzmun keyfiyyəti qazanmağa nail oldu. Sovet imperiyasının dağılmasının get-gedə daha da labüdləşməsi ədəbiyyatda yeni meyillərin yaranmasına gətirib çıxardı. Bu ilk növbədə milli tarixi yaddaşın bərpası, soykökə qayıdış, mifoloji düşüncənin funksionallığının mətndə artması, şifahi xalq ədəbiyyatı nümunələrindən yaradıcı şəkildə istifadə və sovet quruluşunun naqisliklərinin tənqidində görünürdü. Sovet dövrü türk xalqları ədəbiyyatında bu mənfi tendensiya Çingiz Aytmatovun "Gün var əsrə bərabər" romanı ilə başlamışdır. Çingiz Aytmatov "Gün var əsrə bərabər" romanında türk mifoloji mətnlərindən yaradıcı şəkildə istifadə edərək, repressiya kimi türk xalqlarının başına gətirmiş ağrılı faciəni mətnə gətirmiş və sovetlərin apardığı antimilli siyasətə manqurtlaşdırma anlayışı ilə qarşı çıxmışdır. "Əsrə bərabər gün" romanında öz kökündən, tarixi yaddaşından məhrum edilməyin nəticəsində insanın manqurtlaşdırılmasının ifadəsi, Çingiz Aytmatovun dahiyanə kəşfidir. Bu, sovet ideologiyasının hakim olduğu dövrdə həmin rejimin millətləri əridib itirmək, mənəvi aşınmaya məruz qoymaq üçün formalaşdırdığı siyasi sistemə vurulmuş ən ağır zərbə idi" (Həbibbəyli, 2018).

1980-ci illər sovet imperiyasının tərkibində yaşayan aparıcı türk xalqlarının romanında ideyaca iki xətt özünü aşkar göstərmişdir. İmperiyanın tərkibinə ayrıca subyekt, yəni dövlət kimi daxil olan türk xalqlarında 1980-ci illərin əvvəlindən etibarən başlayan və sonlarına doğru artan templə davam edən milli ideya, müstəqillik və azadlıq düşüncəsinin inikasını görmək mümkündür. SSRİ-yə müstəqil subyekt kimi daxil olmayan, muxtar statusu olan türk xalqlarında isə milli ideyanın müstəqillik və azadlıq mərhələsinə keçidini müşahidə etmək çətindir. Bütün bunlara baxmayaraq, repressiya mövzusunun mətnə gətrilməsi, tarixi kökə qayıdış ideyası demək olar ki, bütün türk xalqlarının romanlarında bu dövr üçün əsas istinad nöqtəsi olmuşdur.

Tədqiqatın məkan çərçivəsi baxımından üçüncü həlqəsini təşkil edən uyğur romanı da 1980-ci illərdə özünün yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Qaraxanlı mədəniyyətinin varisi olan, Şərqi Türküstanda yaşayan uyğur xalqı zəngin tarixi keçmişləri, mədəniyyətləri ilə türk xalqları arasında özünəməxsus yer tutmuşdur. Orxon-Yenisey mətnlərində Bilgə Tonyukuk türklərə məsləhət verərkən çinlilərdən uzaq durmağı, onların ipəyinə, qızılına aldanmamağı, köçəriliyi qoruyub saxlamağı tapşırırdı. Şərqi Türküstan yerləşdiyi coğrafi məkan baxımından Tonyukukun da ehtiyat etdiyi təsirə ən çox məruz qalan bölgə olmuşdur. Çin uzun müddət orada yaşayan uyğurlara qarşı "parçala, hökm sür" siyasəti yürütmüş, onları assimiliyasiya etmək üçün əlindən gələni etmişdir. XX əsrdə dünyada baş verən modernləşmə, xalqların öz istiqlaliyyətinə qovuşması fonunda uyğurlar böyük mübarizə tarixi keçmişlər. XX əsr uyğur tarixi üsyanlar, azadlıq uğrunda mübarizə səhifələri ilə zəngindir. Uzun müddət uyğurların mübarizə tarixi haqqında yazmaq sərt senzura ilə qadağan edilmişdir. 1976-cı il Mao inqilabından sonra başlanan nisbi yumşalma uyğur ədəbiyyatının inkişafına da öz müsbət təsirini göstərmişdir. İlk uyğur romanları 1970-ci illərin sonlarına doğru meydana çıxmağa başlayır. 1980-ci illərdə uyğur romançılığı özünün parlaq dövrünü yaşayır. Uyğur romanlarında tarixi xronika əsas yer tutur. Müəllifləri tarixi qəhrəmanların adlarını da dəyişmədən olduğu kimi romanlarda yazmışlar. Bu dövr uyğur romanının yaradıcıları 1940-1960-cı illərdə milli fikirlərinə görə təzyiqlərə məruz qalan, həbs olunan ziyalılar olmuşlar. Onların məqsədi xalqın yaşadıqlarını, onun qəhrəmanlıq tarixinin itməməsi üçün gələcək nəsillərə ötürməkdən ibarət olmuşdur.

**NƏTICƏ**

Beləliklə, dünya romanının keşməkeşli inkişaf tarixi fonunda türk xalqları ədəbiyyatında da roman janrının yaranıb formalaşması özünəməxsus yol keçmişdir. 1980-ci illərdə göstərdiyimiz hər üç halqada, həm Türkiyə romanında, həm SSRİ -nin tərkibində yaşamağa məhkum edilən türk xalqlarının ədəbiyyatında, eləcə də uyğur romanında janrın özünəməxsus keyfiyyətləri meydana çıxmış, təkamül və yeniləşmə prosesləri baş vermişdir.

**ƏDƏBIYYAT SIYAHISI**

Açık, F. (2002). Özbek türk şairi, yazarı, dil bilimcisi ve düşünürü Abdurauf Fıtrat. Kök, 40-52.

Akçura, Y. (2010). Türkçülüyün tarixi. Bakı: "Qanun" nəşriyyatı.

Alimova, D. (2000). Mustabid Tüzimnin Özbekistan Milli Baylıklarını Talaş Siyaseti: Tarih şahidliği ve sabakları. Toşkent: Şark,.

Aras, O. (2020). Əsəd bəy və Qurban Səid: gizlinlər və gerçəkliklər (həyatı, kitabları və məqalələri). Bakı: Elm və təhsil.

Həbibbəyli, İ. (2018). Çingiz *Aytmatov haqqında söz.* Bakı: Elm və təhsil.

Həbibbəyli, İ. (2019). *Azərbaycan ədəbiyyatı: dövrləşmə konsepsiyası və inkişaf mərhələləri.* Bakı: Elm.

Şamıoğlu, Ş. (2016). *Mirzə Fətəli Axundzadə (dövrü, elmi bioqrafiyası və müasirləşmə konsepsiyası).* Bakı: Elm və təhsil.

# MÜSTƏQİLLİK İLLƏRİNDƏ NİZAMİ İRSİNİN NƏŞRİ MİLLİ KİTABŞÜNASLIĞIMIZI ZƏNGİNLƏŞDİRƏN MÜHÜM MƏNBƏ KİMİ

**Mərcan Hüseynova**
AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu
Əlyazmaların elmi ekspozisiyası və tədqimi şöbəsi
*mrcnhuseynova@gmail.com*
BAKI, AZƏRBAYCAN

**Xülasə**

Məqalənin tədqiqat obyekti dahi Nizami Gəncəvinin ədəbi irsinin, xüsusilə də "Xəmsə"yə daxil olan poemaların müstəqillik dövründə nəşri vəziyyətinin öyrənilməsidir. Araşdırmanın predmeti isə Nizaminin kitab şəkilində buraxılmış əsərlərinin bədii və texniki tərtibatı məsələlərinin kitabşünaslıq elmi-nəzəri kontekstində təhlil olunmasıdır. Tədqiqatın məqsədi Nizaminin Azərbaycan və digər türk xalqlarına məxsus mədəniyyətin, məişət tərzinin təqdiminə xidmət edən məqamların aşkarlandığı "Xəmsə"si və bu fikrin türk təfəkküründə xas bədii ifadə tərzini nümunələr əsasında ortaya qoyan poemalarının nəşri məsələlərini ətraflı şərh etməkdir. Bu məqsədlə Nizaminin çap olunmuş əsərlərində öz xalqının keçmişi və gələcək taleyi üçün narahatlıq duyduğunu, fürsət düşdükcə aid olduğu etnosun tarixi, mifoloji dünyagörüşü və adət-ənənələrinə müraciətlə imkan daxilində milli identikliyini ifadə etməyə çalışdığını göstərməkdir. Araşdırma ilə bağlı Azərbaycan Milli Kitabxanası, AMEA-nın Mərkəzi Elmi Kitabxanası və M.Füzuli adına Əlyazmalar İnstitutunun fondlarında axtarışlar aparılmış, İnternet resurslarının öyrənilməsi və monitorinqi nəticəsində mövzu ilə bağlı yeni mənbələr elmi dövriyyəyə daxil edilmişdir. Burada kompleks tədqiqat metodları, o cümlədən tarixi-müqayisəli, nəzəri-təhlili, faktiki, statistik, metodları tətbiq olunmuşdur. Tədqiqat işinin nəticələrindən Nizami və onun yaradıcılığı mövzusunda araşdırma aparan tədqiqatçılar, Azərbaycan ədəbiyyatı fənnini ali məktəblərdə tədris edən müəllimlər, eyni zamanda şairin irsində türk mənəviyyatının müxtəlif sahələrinin bədii əksini öyrənən fərqli ixtisas sahibləri elmi istinad mənbəyi kimi istifadə edə, əcnəbi dildə yazmaq məcburiyyətində qalmış Azərbaycan müəlliflərinin əsərlərində milli mənəviyyatımızın ifadəsini araşdıran tədqiqatçılar isə metodiki mənbə kimi yararlana bilər.

**Açar sözlər:** *ədəbiyyat, şair, milli irs, kitab, mədəniyyət*

**Abstract**

The research object of the article is the study of the literary heritage of genius Nizami Ganjavi, especially the publication of the poems included in "Khamsa" during the period of independence. The subject of the research is the analysis of the issues of artistic and technical design of Nizami's works published in book form in the scientific-theoretical context of bibliography. The purpose of the research is to interpret in detail the publication of Nizami's "Khamsa" in which the moments serving to present the culture and lifestyle of Azerbaijan and other Turkic peoples are revealed, and the poems that reveal the artistic expression of this idea specific to Turkish thinking based on examples. For this purpose, it is to show that in Nizami's printed works, he is concerned about the past and future destiny of his people, and tries to express his national identity as much as possible by referring to the history, mythological worldview and customs of the ethnos he belongs to. In connection with the research, searches were conducted in the funds of the National Library of Azerbaijan, the Central Scientific Library of ANAS, and the Institute of Manuscripts named after M. Fuzuli. Complex research methods, including historical-comparative, theoretical-analytical, actual, statistical, methods were applied here. Researchers conducting research on Nizami and his creativity, teachers teaching the subject of Azerbaijani literature in higher schools, as well as holders of different specialties who study the artistic reflection of various fields of Turkish spirituality in the poet's legacy can use the results of the research as a source of scientific reference in the works of Azerbaijani authors who were forced to write in a foreign language. and researchers investigating the expression of our national spirituality can use it as a methodical source.

**Key words:** *literature, poet, national heritage, book, culture*

## GIRIŞ

Bu gün Azərbaycanda və dünyada kifayət qədər tanınan və böyük şöhrət qazanmış Nizami Gəncəvinin zəngin bədii irsini də müasir dövrdə azərbaycançılıq və müstəqil dövlətçilik işığında yenidən tədqiq və təbliğ etməklə bu görkəmli sənətkarı daha dərindən kəşf etməyə və bütün parlaqlığı ilə tanıtmağa ehtiyac vardır. "Nizami Gəncəvinin nəsil şəcərəsi", "Nizami Gəncəvi yaradıcılığında azərbaycançılıq", "Nizami Gəncəvinin dövlətçilik idealları və müasir dövr", yaxud "Nizami Gəncəvi və Azərbaycan renesansı" və sair kimi problemlər məhz indi, müstəqilliyimizin inkişaf etdiyi bizim günlərdə daha çox aktuallıq kəsb edir. Möhtərəm Prezidentimizin 2021-ci ilin "Nizami ili" elan edilməsi haqqındakı mühüm tarixi əhəmiyyətə malik olan Sərəncamı şairin həyat və yaradıcılığını bütün istiqamətlər üzrə yeni təfəkkür əsasında tədqiq və təhlil etməyə geniş imkan yaradan tarixi sənəd kimi mühüm əhəmiyyətə malikdir.

Təqdirəlayiq haldır ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Nizami ili" ilə əlaqədar imzaladığı Sərəncam vaxtiylə Ümummilli liderimiz Heydər Əliyevin 1979-cu ildə böyük Azərbaycan şairi Nizami Gəncəvinin zəngin irsinin tədqiqi, tərcümə və nəşr edilməsi haqqında qəbul etdiyi qərar əsasında həyata keçirilmiş tədbirlərə yenidən qayıtmaq, başlanmış mühüm işləri daha geniş miqyasda və əhatəli şəkildə, yaradıcılıqla davam etdirmək üçün də geniş meydan açmışdır. Bu baxımdan, Nizami Gəncəvinin əsərlərinin dünya dillərinə tərcüməsi, "Xəmsə"nin akademik nəşrinin hazırlanıb çap olunması görkəmli sənətkarın haqqında xarici dillərdə tanıtma kitablarını yazıb nəşr etdirmək baxımından da qarşıda mühüm vəzifələr durur. Dahi Nizami Gəncəvinin "Xəmsə"sinə daxil olan "Sirlər xəzinəsi", "Xosrov və Şirin", "Leyli və Məcnun", "Yeddi gözəl" və "İsgəndərnamə" poemaları ilk dəfə bir kitabda Azərbaycan dilində 2012-ci ildə nəşr edilib. Heydər Əliyev Fondu, Mədəniyyət Nazirliyi və Gəncə şəhər İcra Hakimiyyətinin dəstəyi ilə hazırlanmış böyük formatlı nəşrə toplanmış 5 poemanın hər birinə yazılan ön söz əsərlərin mahiyyətini dolğun ifadə edir. Xəlil Yusifli, Səməd Vurğun, Məmməd Rahim, Abdulla Şaiq və Mikayıl Rzaquluzadənin tərcüməsində təqdim olunan "Xəmsə"yə CD disk də əlavə edilib.

## TƏDQIQAT METODU

"Nizami Gəncəvi ili"nin xalqımızın Zəfər ilinə çevrilmiş 2020-ci ildən sonraya təsadüf etməsi, xüsusilə əlamətdardır. Biz bu Zəfəri ədalət uğrunda apardığımız savaşda qazandıq. Azərbaycan Ordusu Silahlı Qüvvələrimizin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə düşmənə qalib gələrək illərdir işğalçı Ermənistanın tanımadığı, tapdadığı ədaləti bərpa etdi. Milyonlarla soydaşımızın pozulmuş haqlarını, hüquqlarını özünə qaytardı. Əzəli torpaqlarımıza qayıdış üçün yol açdı. Bu torpaqlarda ermənilərin 30 illik xarabazarlıq dövrü bitdi.

44 günlük Vətən müharibəsində xeyir şər üzərində qələbə çaldı. Bu, Qarabağ torpaqlarında hər kəsin rifah içində yaşamasına, xoşbəxt bir həyatın qurulmasına, insan hüquq və azadlıqlarının qorunmasına, ermənilərin illərlə xarabalıqlara çevirdikləri məkanlarımızın yenidən cənnətə çevrilməsinə zəmin yaradan qələbədir. "Nizami Gəncəvinin əsərlərinin də əsas qayəsində məhz bəşəriyyət üçün bu ali məqsədlər durur. Böyük mütəfəkkir "Xəmsə"sində də, lirik şeirlərində də məhz mütərəqqi ideyaları, inkişaf niyyətlərini təbliğ edirdi. Dağıdıcılığı yox, quruculuğu, nifrəti, insana əzab verməyi yox, onun rifahına çalışmağı önə çəkirdi. Ədaləti, insanpərvərliyi, sevgini, dostluğu, əməksevərliyi, dürüstlüyü, saflığı və s. bu kimi mənəvi keyfiyyətləri insanlığın zinəti kimi göstərir" (Qəhrəmanov, 2016).

Böyük şairin əsərlərində XII əsrin həyati mənzərəsi şairin duyğuları, düşüncələri, arzuları şəklində əks olunur. Amma bu təkcə cəmi bir əsrə sığan həyat deyil. Ümumən bəşəriyyətin keçmişi, bu günü və gələcəyidir. Nizami Gəncəvi yaradıcılığında cəmiyyətdəki ziddiyyətlər, ağır epik lövhələr, həmin ziddiyyət və ağırlıqlardan doğan narazılıqlar qədər bu ziddiyyətlərin, əzab və əziyyətlərin aradan qalxacağına, xeyirin hər zaman qalib gələcəyinə böyük bir ümid də var.

Nizamişünaslıq dünya elmi olsa da, Azərbaycan dünya Nizamişünaslığının mərkəzidir. Dünya ölkələrində Nizami Gəncəvi haqqında yazılanları tərəzinin bir gözünə, Azərbaycanda aparılan tədqiqatları, çap olunan kitabları və tərcümələri tərəzinin o biri gözünə qoyulsa, Azərbaycan Nizamişünaslığı ağır gələr. "Qədim dövr və orta əsrlərdən başlamış Nizami haqqında yazmış təzkiräçilərin əksəriyyəti: Əhdi Bağdadi, Sadiq bəy Əfşar, Lütvəli bəy Azər, Hüseyn Əfəndi Qayıbov, Mir Möhsün Nəvvab və başqaları azərbaycanlı idilər" (Ələkbərli, 2012).

XX əsr ərzində də Azərbaycan elmi Nizamişünaslığa böyük töhfələr vermişdir. Firudin bəy Köçərli, Mirzə Məhəmməd Axundov, Həmid Araslı, Mir Cəlal, Mirzə İbrahimov, Məmməd Cəfər

Cəfərov, Azadə Rüstəmova, Mikayıl Rəfili, Xəlil Yusifli, Zümrüd Quluzadə, Çingiz Sasani və başqaları Nizami Gəncəvi irsinin tədqiqi işinə samballı elmi töhfələr vermişlər. Nizami Gəncəvinin "Xəmsə"yə daxil olunan əsərlərinin və şeirlərinin Azərbaycan dilində tərcümə və nəşr olunması, xarici dillərdə yayılması və təbliğində də Azərbaycan həmişə aparıcı mövqeyə malik olmuşdur.

Azərbaycan Milli Elmlər Akademiyasının Humanitar və İctimai elmlər bölmələrini əhatə edən elmi tədqiqat institutları müstəqillik dövründə yeni tarixi mərhələnin yüksək tələblərinə cavab verən elmi əsərlər yazıb nəşr etdirməyi də özlərinə şərəfli borc hesab edirlər. Artıq ölkəmizdə yeni Nizamişünaslar nəsli yetişib formalaşmışdır. Akademik Teymur Kərimli, müxbir üzv Nüşabə Araslı, filologiya elmləri doktorları Mehdi Kazımov, Məhəmməd Qocayev, Seyfəddin Rzasoy, Şəfəq Əlibəyli, filologiya üzrə fəlsəfə doktorları Zəhra Allahverdiyev, Hacı Siracəddin, Vəfa Hacıyeva, Xuraman Hümmətova, Əzizağa Nəcəfzadə, Xanəli Babayev, Təhminə Bədəlova, Yelena Teyer, Xədicə İskəndərli, Gülgün Babayeva, doktorantlardan Hürnisə Bəşirova, Samirə Əliyeva, Məsumə Rzayeva və başqaları Azərbaycan Nizamişünaslıq elmini müstəqillik işığında ciddi elmi problemlərin və yeni yanaşmaların əsasında meydana çıxmış elmi əsərləri ilə zənginləşdirməkdə davam etməkdədirlər.

Azərbaycan Milli Elmlər Akademiyası dahi Azərbaycan şair-mütəfəkkiri Nizami Gəncəvinin "Sirlər xəzinəsi"ndən sonra ikinci poeması "Xosrov və Şirin"i akademik Akif Əlizadənin layihə rəhbərliyi ilə 2018-ci ildə nəşr etdirmişdir. Görkəmli tərtibatçı-rəssam Fəxrəddin Əli möhtəşəm əsərə çəkdiyi miniatürlərdə öz böyük istedadını, yaradıcılıq enerjisini, peşəkarlığını əsirgəmədiyi kimi, "Şərq-Qərb" nəşriyyatı da zəngin poliqrafik ənənələrinə sadiq qalaraq Azərbaycan kitab mədəniyyətinə hər cəhətdən mükəmməl bir töhfə vermişdir. Xosrov və Şirin" Xalq şairi Rəsul Rzanın məşhur tərcüməsində təqdim olunur. Respublikanın Əməkdar rəssamı F.Əli "Xosrov və Şirin" mənzum romanını nəfis miniatürlərlə işıqlandırmışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə 2021-ci ilin "Nizami ili" elan olunması Nizamişünaslıq elminin daha da inkişaf etdirilməsinə böyük stimul vermişdir. "Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda fəaliyyət göstərən "Nizamişünaslıq" şöbəsinin əməkdaşları Prezident Sərəncamının işığında son dörd il ərzində üzərində çalışdıqları, ilk mənbələrə, orijinal mətnlərə istinad etmək əsasında yazılmaqda olan "Nizami Gəncəvinin həyatı və yaradıcılığı", "Nizami Gəncəvinin elmi tərcümeyi-halı" adlı monoqrafiyaları daha da təkmilləşdirərək tamamlayıb ictimaiyyətə təqdim edəcəklər" (Məmmədova, 2021). Bundan başqa, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Şota Rustaveli adına Gürcü Ədəbiyyatı İnstitutu ilə birlikdə 2017-2020-ci illərdə həyata keçirdikləri "Nizami Gəncəvi və Şota Rustaveli" monoqrafiyasının da 2021-ci ildə Bakıda və Tbilisidə Azərbaycan, gürcü və ingilis dillərində kitab halında nəşr edilmişdir.

Ədəbiyyat İnstitutunun əməkdaşları "Nizami Gəncəvinin görkəmli davamçısı Əmir Xosrov Dəhləvi" adlı monoqrafiya üzərində də tədqiqat işlərini davam etdirirlər. Bundan başqa, uzun illərdən sonra nəşri yenidən bərpa edilmiş "Nizami Gəncəvi almanaxı"nın ikinci sayı da 2021-ci ildə oxuculara çatdırılmışdır. Eyni zamanda, Ədəbiyyat İnstitutunun əməkdaşlarından Zəhra Allahverdiyeva, Vəfa Hacıyeva və Hacı Siracəddinin Nizami Gəncəvinin həyatı və yaradıcılığının aktual problemlərinə həsr olunmuş doktorluq dissertasiyaları müzakirəyə çıxarılmışdır.

Hələ Sovet dövründə geniş miqyasda rus dilində Nizami əsərlərinin nəşrlərinin çapı müstəqillik dövrünün ilk illərində bir sıra çatışmazlıqlara baxmayaraq, davam etmişdir. 2009-cu ildə "Azərbaycan poeziyası antologiyası" yenidən üç cilddə Xalq yazıçısı Anarın redaktorluğu və müqəddiməsi ilə işıq üzü görmüşdür. Bu nəşrdə digər klassiklərimizlə yanaşı, Nizaminin "Sirlər xəzinəsi" ("Ənişirəvan və onun vəziri haqqında hekayət"), "Xosrov və Şirin" poemasından ("Xosrovun ova getməsi"), "Leyli və Məcnun"dan ("Leyli və Qeys bir-birinə necə vuruldular"), "Yeddi gözəl" poemasından ("Bəhram haqqında hekayətin başlanğıcı") və "İskəndərnamə"dən ("İskəndərin doğulması ilə bağlı hekayətin başlanğıcı və doğrunun izahı") kimi fraqmentlər K.Lipskerovun, T.Streşnevanın və V.Derjavinin tərcümələrində rusdilli oxucuların ixtiyarına verilmişdir. Bundan başqa, bu nəşrdə şairin üç qəzəli K.Lipskerov və İ.Bruninin tərcüməsində rus oxucularına təqdim olunmuşdur.

XXI əsrdə də Azərbaycan alimləri Nizami yaradıcılığı ilə bağlı bir çox məsələlərə aydınlıq gətirmişlər. "Z.Məmmədovun "Nizami Gəncəvinin fəlsəfi düşüncələri" adlı kitabında Nizaminin Allah və mövcudat, insan və cəmiyyət, elm və idrakla bağlı düşüncələrinin təhlili obyektiv əksini tapmışdır. Bu dövrdə T.Kərimlinin "Nizami və tarix" monoqrafiyasında Nizami yaradıcılığında tarixi şəxsiyyət

obrazlarından danışılır və şairin tarixi hadisələrə münasibəti işıqlandırılır. N.Araslının "Nizaminin poetikası" tədqiqatında əsərlərinin poetik sistemi incəliklərinə qədər təhlil olunur" (Əliyev, 2021).

S.Rzasoyun 2003-cü ildə çap olunmuş kitabında Nizami poeziyası mif-tarix kontekstində araşdırılaraq orta çağ bədii düşüncə kodunun mətndə gerçəkləşmə imkanlarının funksional dinamikası öyrənilir. M.Abdullayevanın "Klassik poeziya: ezoterik xəzinə" adlı monoqrafiyasında Nizami beytlərinin daxili qatında gizli olan mistik düşüncələrə, metaforalara aydınlıq gətirilir. Nizami filosof şairdir. M.Abdullayeva qeyd edir: "Filosof şairlər mikrokosmos və makrokosmos haqqında mistik biliklərini yaratdıqları əsərlərin dərin qatlarında gizlədir, metaforalardan istifadə edirdilər. Bu istiqamətdən yanaşdıqda da nizamişünaslığın qarşısında böyük vəzifələrin olduğunu görürük. Bu gün Nizami əsərlərinin geniş şərhinə ehtiyac vardır" (Nağısoylu, 2011).

Qədim və orta əsrlər Azərbaycan ədəbiyyatı mütəxəssisi Xəlil Yusiflinin elmi fəaliyyətinin böyük bir hissəsini nizamişünaslıq təşkil edir. "Xəmsə"yə daxil əsərlərin tərcüməsi və yeni təfəkkür işığında öyrənilməsində böyük xidmətləri olan alimin 2011-ci ildən başlayaraq nəşr edilən məqalə və kitablarında qabardılan əsas məsələlərdən biri də şairin milli mənsubiyyəti ətrafında gedən mübahisələrdir. Şairin 870 illik yubileyinin dövlət səviyyəsində qeyd olunduğu dövrdə Nizamiyə edilən haqsız hücumlar, onun milli mənsubiyyətini hər vəchlə türk kökündən uzaqlaşdırmaq istiqamətində cəhdlər, tədqqatda yol verilən yanlışlıqlar, səhv nəzəri mülahizə və təhriflər alimin bu mövzuya dönə-dönə qayıtmasına səbəb olmuşdur.

Alim 2011-ci ildə Gəncədə çap olunan "Xosrov və Şirin" poemasına yazdığı "Elmi və bədii fikrin üfüqləri fövqündə" adlı ön sözdə Nizaminin öz əsərlərindən gətirilən nümunələrlə şairin milli və etnik mənsubiyyətini sübuta yetirməyə ehtiyac olmadığını, onun Azərbaycan türkü olduğunu, əslinin hər hansı bir digər etnosa bağlamağın heç bir elmi əsası olmadığını bir daha qeyd edir.

Nizaminin türk olmasına rəğmən fars dilində yazması zərurəti haqqında danışarkən X.Yusifli fkrini belə əsaslandırır: "Yaradıcılığa çox erkən başlayan, lirik şeirləri ilə böyük şöhrət qazanan şair artıq bu əsərləri ilə türklərin və farsların fars dilində yaratdığı poeziya axtarışlarına qoşulur. Türk hökmdarlarının (Samanilər, Qəznəvilər, Səlcuqilər və s.) himayə etdiyi bu poeziya axını əslində bir hünər meydanına çevrilir, hansı xalqın nümayəndəsi olmasından asılı olmayaraq, sənətkarlar ümumi bir axında birləşir, fikir və sənət axtarışları sahəsində nəyə qadir olduqlarını nümayiş etdirirlər" (Əliyev, 2021).

Alim Nizaminin "Xosrov və Şirin" əsərindəki bir beytdə yer alan "iqdiş" kəlməsinin bəzən yanlış yozulduğunu və səhvən şairin milli mənsubiyyəti ilə əlaqələndirildiyini göstərir. X.Yusifli həmin beyti "Yaşar xəlvətdə bu iqdiş Nizami, Yarı baldır, yarı sirkə kəlamı" – şəklində tərcümə edərək belə şərh edir: "Nizami bu misralarda iqdişliyinin mahiyyətini çox dəqiq göstərir: zahidlik və şairlik, bal kimi şeirlər və sirkə kimi tünd əxlaqi təbiət. Şair gül məclisində tikan olmağı özünə rəva görmür, çünki zahidliyi, sərt əxlaqı şeirlərindən fərqli olaraq, tikana bənzəyir. Bu iqdişlik bal və sirkə, gül və tikan iqdişliyidir" (Əliyev, 2021).

Alim Nizaminin türklüyü və türklüyə xüsusi rəğbətlə yanaşması məsələsinə "Xosrov və Şirin" əsərinin mənbələrini aydınlaşdırarkən də toxunur: "... Nizami eşq haqqında bir əsər yazmaq üçün mövzu axtarışları apararkən, onu məhz "Xosrov və Şirin" mövzusunu seçməyə yönəldən qaynaqlardan, səbəblərdən biri, bəlkə də birincisi Firdovsi "Şahnamə"si olmuşdur. Nizaminin bu mövzu ilə bağlı bildikləri, tarixi qaynaqlardan öyrəndikləri, Bərdə əlyazması, Bərdə qocalarından əldə edilən bilgilər və s. məqamlar onun bu mövzuya müraciət etmək meylini daha da gücləndirmişdir. ... Eyni zamanda, görünür ki, Nizami Şirinin Bərdəli bir alban türk qızı olduğunu yaxşı bildiyindən, özü də türk olduğundan bu mövzuda əsər yazmağa daha maraqlı idi" (Nağısoylu, 2011).

X.Yusifli Nizaminin sələfi Firdovsidən fərqli olaraq, "Xosrov və Şirin"də Şirin və onun bibisi Məhinbanunu bir türk kimi təqdim etməklə poema müəllifinin qürur duyduğunu söyləyir və şairin ənənə daxilində bu yeniliyi, sadəcə, əsəri sifariş verən, türk əsilli Atabəy hökmdarları Məhəmməd Cahan Pəhləvan və ya qardaşı Qızıl Arslanın rəğbətini qazanmaq məqsədi ilə etmədiyini, mənbələrin buna imkan verdiyi üçün türk tarixinə yeni bir həyat verdiyini xüsusi vurğulayır. O, türk sultanlarının saraylarında farsca yazılan əsərlərə xüsusi imkan yaradılmasının isə türk hökmdarlarının beynəlmiləlçi siyasəti ilə əlaqələndirir.

Nizami poemalarının mövcud filoloji tərcümələri Azərbaycan alimlərinin uğuru kimi ədəbi ictimaiyyət tərəfindən yüksək qiymətləndirilir. Buna baxmayaraq, orjinaldan yeni tərcümələrinə ehtiyac var. Qədim əlyazmaların oxunuşu, tərcüməsi gərgin zəhmət tələb edir. Bu tərcümələr Nizami

irsinin tədqiqinə dəyərli töhfələrdir. Mövcud filoloji tərcümələrdə müəyyən qüsurlar vardır. Bunlar mətnin düzgün oxunmamasından irəli gəlir. Bir hərf düzgün oxunmadıqda sözün mənası dəyişir, bu isə fikrin təhrifinə səbəb olur. X.Yusifli, T.Cahangirov və başqalarının məqalələrində bununla bağlı geniş bəhs açılıb. Əsərlərin yenidən tərcüməsi bəzi mübahisəli məsələlərə aydınlıq gətirməklə yanaşı, şairin həyatı, milli mənsubiyyəti və s. haqqında da yeni məlumatları aşkar edə bilər.

Dünyada Nizami irsinə olan marağı nəzərə alaraq Nizami əsərlərinin müxtəlif dünya dillərinə tərcüməsi də zəruridir. Bir çox xalqlar ingilis dili vasitəsi ilə Nizami əsərləri ilə tanış olurlar və təqdirəlayiq olar ki, Azərbaycan dilindən birbaşa həmin xalqların dillərinə tərcümələr olarsa Nizami irsindən daha geniş oxucu kütləsi bəhrələnəcəkdir. Xüsusən hal-hazırda uzaq Şərqdə türk dünyası ədəbiyyatına böyük diqqətin olması Nizami irsinin bu dillərə tərcümə olunmasına ehtiyacın olduğunu göstərir.

Sankt-Peterburq Universitetinin şərqşünaslıq fakültəsinin professoru Əfrasiyab Vəkilovun Azərbaycan və rus dillərində, nəfis şəkildə yenidən nəşr olunan "Blokadalı Leninqradda Nizaminin yubileyi" adlı kitabı Böyük Vətən müharibəsinin hökm sürdüyü ağır günlərdə, mühasirə şəraitində yaşayan Leninqradda dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 800 illik yubileyinə həsr olunmuş möhtəşəm gecənin təşkil olunaraq keçirildiyindən bəhs edir.

Yalnız bir məkanda - o vaxt blokadada olan Leninqradda, Ermitajda keçirilən yubiley tədbirinə həsr olunan kitabda şəhər əhalisinin qələbəyə, gözəlliyə, zərifliyə inamını itirməməsi faktı qabarıq cizgilərlə göstərilmişdir. Geniş mənada desək, Nizami Gəncəvi faşistlər tərəfindən mühasirəyə alınmış Leninqrad şəhərinin və cəsur leninqradlıların hamisi və mənəvi qoruyucusu olmuşdur.

"Blokadalı Leninqradda Nizaminin yubileyi" adlı kitabı dahi şairin yaradıcılığının, şəxsiyyətinin və sovet dönəmində qeyd olunmuş yubileylərin öyrənilməsi və araşdırılması istiqamətində çox qiymətli elmi töhfə kimi dəyərlidir. Nizami Gəncəvinin anadan olmasının 880 illiyi münasibətilə nəşr olunan kitab blokadalı Leninqradın tarixi ilə maraqlananlar üçün də zəngin elmi mənbədir.

"Yeni nəşrlər sırasında xüsusi maraq doğuran, mühüm elmi əhəmiyyət dayıyan kitablardan biri də Nizami Gəncəvinin dünya şöhrətli "Xəmsə"sinin orijinal mətni üzərində aparılan elmi tədqiqatın mühüm nəticəsi olan, tanınmış şərqşünas alim, filologiya elmləri doktoru Şəfəq Əlibəylinin "Nizami "Xəmsə"sində akustik obrazlar (linqvopoetik təhlil)" adlı monoqrafiyasıdır". Müəllif yenicə çapdan çıxmış bu əsərini vətən yolunda canından keçən şəhidlərimizin əziz xatirəsinə ithaf edib. AMEA Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin Elmi şurasının qərarı ilə çap olunan kitabın elmi redaktoru akademik Rafael Hüseynovdur. Akademik Möhsün Nağısoylu və filologiya üzrə fəlsəfə doktoru, dosent Əsmətxanım Məmmədova həmin monoqrafiyaya müsbət rəy vermişlər.

Monoqrafiya Nizami Gəncəvinin şairlik, söz seçimi istedadından xəbər verən, lakin tərcümədə öz əksini tapa bilməyən məqamların açıqlanması cəhətdən çox əhəmiyyətlidir. Məsələn, Nizami nəzmində çox zəngin, fərdiliyi ilə seçilən qafiyə sistemi vardır. Monoqrafiyada səs semantikalı leksemlər üzərində qurulan bir qafiyə sistemi təqdim olunur. Nizaminin əsərlərinin leksik zənginliyi səs semantikalı sözlərin sinonimliyində də özünü göstərir. Əfsus ki, bu məqam da tərcümədə öz əksini tapa bilmir. Tədqiqatda yer alan belə məqamlar çoxdur.

**Nəticə**

Beləliklə, böyük Azərbaycan şairi Nizami Gəncəvi haqqında qəbul edilmiş Prezident sərəncamı yeni nəsillərdə milli iftixar, azərbaycançılıq, vətənpərvərlik duyğuları aşılamaq, milli-mənəvi özünüdərk proseslərini daha geniş şəkildə təbliğ etmək üçün də qarşımızda yeni perspektivlər açmışdır. Bu istiqamətdə ümumtəhsil məktəblərindən başlamış elm və mədəniyyət müəssisələrinə qədər hər yerdə, kütləvi informasiya vasitələrində düşünülmüş təbliğat işləri aparmaq hər bir ziyalının borcudur. Nizaminin "Xəmsə"sindən ilhamlanmanın nəticələri olan çoxsaylı miniatürlərin təhlili göstərir ki, bu əsərlərdə onsuz da çoxqatlı olan poetik misralara rəssam münasibətində də dahi söz xiridarının aşıladığı bəşəri ideyalara yaddaqalan, çox vaxt da şaşırdıcı bədiilik-əyanilik gətirilmişdir. Önəmlisi isə, "Xəmsə"nin özü kimi, bu miniatürlərin də zamansızlığa qovuşması və milli-mənəvi dəyərlərimizin beynəlxalq miqyasda təbliğçisi olacağı birmənalıdır. Klassik Şərq poeziyasına yaxından tanış olan Fəxrəddin Əli Nizami əsərlərini diqqətlə nəzərdən keçirmiş, "Leyli və Məcnun" poemasının fikri və poetik məziyyətlərini dərindən duyaraq, seçdiyi süjetləri ustalıqla canlandırmağa çalışmışdır. Təcrübəli rəssam əsər qəhrəmanlarını da poemanın məzmununa uyğun Nizaminin saf məhəbbət, uca mənəviyyat, təbiətə və onun bəzəyi olan canlılara sevgi, qayğı, ata-anaya ehtiram, övlada məhəbbət, dostluq, sədaqət və fədakarlıqla bağlı yüksək bəşəri ideallarını bacardıqca əhatə

etməyə cəhd göstərmişdir. Rəssamın çəkdiyi rəsmlərin əksəriyyəti poemanın lirik ruhunu, obrazların zahiri gözəlliklərilə yanaşı, daxili aləmini də əks etdirərək əhvalatların baş verdiyi zaman, məkan, mühit haqqında da müəyyən təsəvvür yaratmaqla bütövlükdə əsərin bədii məqsədinin aydın anlaşılmasına xidmət edir.

**Ədəbiyyat siyahısı**

1. Ələkbərli, F. (2012). Nizaminin dünya kitabxanalarında tapılan əlyazmaları tədqiq edilir. Mədəniyyət qəzeti, 26 sentyabr, 6.

2. Əliyev, Q. (2021). Nizami Gəncəvinin əsərlərinin Azərbaycanda tədqiqi tarixi. Azərbaycan müəllimi qəzeti, 20 fevral, 5-6.

3. Qəhrəmanov, C. (2016). Nizami Gəncəvi əsərlərinin əlyazmaları dünya kitab xəzinələrində: biblioqrafiya, 245.

4. Məmmədova, S. (2021). Nizaminin Gəncəvinin Topqapı Saray Muzeyi Kitabxanası və Süleymaniyyə əlyazma əsərlər kitabxanasında saxlanan "Xəmsə" əlyazmaları. Azərbaycan Milli Elmlər Akademiyası, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Elmi əsərləri, 1, 37-45.

5. Nağısoylu, M (2011). Nizami Gəncəvi "Xəmsə"sinin ən qədim və nəfis əlyazmaları haqqında. Azərbaycan Milli Elmlər Akademiyası, Gəncə Regional Mərkəzinin Elmi əsərləri, 1, 94-101.

# MƏMMƏDAĞA SULTANOVUN DRAMATURGİYASI (KİÇİK HƏCMLİ PYESLƏR)

**TAMİLLA MƏHƏRRƏMZADƏ**
Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi
Nizami Gəncəvi adına Azərbaycan Milli Ədəbiyyat Muzeyi
tamilla_filologiya@mail.ru
Bakı, Azərbaycan Respublikası

**XÜLASƏ**

Tədqiqat işinin obyekti görkəmli mətnşünas, ədəbiyyatşünas, klassik irsimizin tanınmış tərcüməçisi Məmmədağa Sultanovun bədii yaradıcılığının mühüm tərkib hissəsi olan dramaturji irsidir. İşin aktuallığı ondan ibarətdir ki, müəllifin dramaturji fəaliyyəti ilk dəfə tədqiqata cəlb edilir. Məmmədağa Sultanovun şəxsi arxiv materialları əsasında onun qeyri-mətbu əsərlərinin təhlilə cəlb olunması nəticəsində bir sıra dramaturji əsərləri haqqında elmi içtimaiyyətə ilk dəfə məlumat verilməsi tədqiqat işinin elmi yeniliyidir. Daha çox elmi və bədii tərcümə fəaliyyəti ilə məşhur olan bir müəllifin şəxsi arxivi əsasında bədii yaradıcılığının üzə çıxarılması XX əsr Azərbaycan ədəbiyyatşünaslarının digər nümayəndələrinin də oxşar fəaliyyətlərinin tədqiqi üçün nümunə ola bilər. Bu da işin praktiki əhəmiyyətini təşkil edir. Təqdim olunan məqalədə bu istiqamətdə aparılan tədqiqatın nəticələri təqdim olunur. Belə qənaətə gəlinir ki, Məmmədağa Sultanovun dramaturji risi əsasən, kiçik həcmli satirik pyeslər, yumoristik dialoqlardan ibarət olsa da, cəmiyyət üçün son dərəcə aktual problemlərin həllinə yönəlmiş səhnə əsərləridir. Müəllifin yaradıcılığında tarixi mövzuda və beynəlxalq əhəmiyyət daşıyan dram əsərləri də var ki, bu pyeslərdə daim nikbin əhval-ruhiyə ifadə olunur. Məmmədağa Sultanovun dramaturji irsini araşdırdıqda belə nəticə əldə edirik ki, o, elmi fəaliyyəti ilə bədii yaradıcılığını üzvi şəkildə əlaqələndirməyibacaran nadir sənətkarlarımızdandır. Onun dramaturji irsində xalq yaradıcılığından, klassik ədəbi irsimizdən gələn ənənələr müasir Avropa ədəbiyyatının nailiyyətləri ilə sintez edilərək təqdim olunur. Dramaturqun pyeslərindən bir qismi uşaqlar üçün qələmə alınmışdır ki, bu əsərlərin məzmununda təmsil janrının elementləri də aydın hiss olunur.

**AÇAR SÖZLƏR**: Məmmədağa Sultanov, dramaturgiya, kiçik həcmli pyeslər

## MAMMADAGA SULTANOV'S DRAMATURGY (SMALL PLAYS)

**SUMMARY**

The object of the research work is the dramaturgical legacy, which is an important component of the artistic creativity of Mammadaga Sultanov, an outstanding textologist, literary critic, well-known translator of our classical heritage. The relevance of the work is that the dramaturgical activity of the author is involved in research for the first time. As a result of the analysis of Mammadaga Sultanov's non-print works on the basis of personal archive materials, it is a scientific innovation of the research work to inform the scientific community about a number of dramaturgical works for the first time. Uncovering the artistic creativity of an author, who is more famous for his scientific and literary translation activities, based on his personal archive, can be an example for the study of similar activities of other representatives of Azerbaijani literary scholars of the 20th century. This is the practical importance of the work. The presented article presents the results of the research conducted in this direction. It is concluded that although Mammadaga Sultanov's dramaturgy mainly consists of small-scale satirical plays and humorous dialogues, they are stage works aimed at solving extremely pressing problems for society. In the author's work, there are drama works of historical and international importance, in which the optimistic mood is always expressed. When we examine the dramaturgical heritage of Mammadaga Sultanov, we get the conclusion that he is one of our rare artists who can organically connect his scientific activity with his artistic creativity. In his dramaturgical heritage, the traditions from folk creativity and our classical literary heritage are synthesized and presented with the achievements of modern European literature. Some of the dramatist's plays were written for children, and elements of the performance genre are clearly feel in the content of these works.

**KEYWORDS:** Mammadaga Sultanov, dramaturgy, small plays

**GİRİŞ.** Məmmədağa Sultanov XX əsr Azərbaycan ədəbiyyatı tarixində bədii yaradıcılığı çox az öyrənilmiş müəlliflərdəndir. Onun M.Soltan imzası ilə qələmə aldığı poetik irsi, bədii nəsri ilə yanaşı, dramaturji əsərləri də ədəbiyyatımızın qiymətli nümunələridir ki, bu vaxta qədər elmi təhlilə cəlb olunmamışdır. Ədibin pyesləri daha çox qeyri-mətbu halda olub, onun şəxsi arxivində qorunur. Bu əsərlərin əksəriyyəti əlyazma və makina çapı nüsxələri olduğu üçün tədqiqatçıların diqqətindən kənarda qalıb. Tədqiqat göstərir ki, Məmmədağa Sulatanovun pyesləri dövrü üçün son dərəcə aktual mövzulara toxunan, ictimai problemlərin həllinə yönələn əsərlərdir.

Tədqiqat işinə ehtiyac ondan doğur ki, Məmmədağa Sultanovun dramaturji irsi bu vaxta qədər tədqiq olunmadığından onun bədii irsinin yalnız poetik və kiçik həcmli nəsr nümunələrindən ibarət olması fikri formalaşıb. Bu tədqiqat əsəri isə onu söyləməyə imkan verir ki, Məmmədağa Sultanov həm də istedadlı dramaturqdur.

Məmmədağa Sultanovun dramaturgiyasının özünəməxsusluğunu, onun pyeslərində qaldırılan ictimai əhəmiyyətli problemləri, dramaturqun sənətkarlıq bacarığını, yararlandığı mənbələri və yaşatdığı ədəbi ənənəni üzə çıxarmaq üçün ədibin vaxtı ilə rəhbərlik etdiyi AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutundakı şəxsi arxivindəki materiallar tədqiqata cəlb olunmuşdur. Nəticədə onun dramaturgiyaya müraciət etməsinə sövq edən amillər və tədqiqata cəlb olunan əsərlərin yazılmasına səbəb olan hadisələr və s. müəllifin tərcümeyi-hal xarakterli sənədləri əsasında müəyyən olunmuşdur.

Təqdim olunan tədqiqat işində Məmədağa Sultanovun elmi və bədii fəaliyyəti haqqında qısa məlumat verilir, dramaturgiyanın ədibin ümumi bədii yaradıcılığındakı yeri müəyyən edilir. Tədqiqatda həm kiçik, həm də nisbətən böyük həcmli pyeslərin məzmunu ilk də qısa şəkildə oxucuya təqdim olunur, mövzu, janr və məzmun mündəricəsi etibarilə sistemləşdirilərək təhlil edilir.

**TƏDQİQAT METODU.** Tədqiqat işində qarşıya qoyulmuş məqsədə nail olmaq üçün müəllifin XX əsrin birinci yarısında mətbuatda dərc olunan kiçik həcmli pyesləri, onun şəxsi arxiv fondunda mühafizə olunan əlyazmaları, ədib haqqında mövcud azsaylı tədqiqatlar, elmi ictimaiyyətin diqqətindən kənar qalan tərcümeyi-hal məzmunlu sənədlər araşdırmaya cəlb edilmiş, tədqiqat prosesində bioqrafik metoddan istifadə olunmuşdur. Məmmədağa Sultanovun dramaturji fəaliyyətində təmsil etdiyi ədəbi məktəbi və nümayəndəsi olduğu ədəbi cərəyanı müəyyən etmək üçün həm də müqayisəli-tarixi metoddan yararlanmışıq.

**NƏTİCƏ.** Tədqiqat nəticəsində müəyyən olunur ki, görkəmli ədəbiyyatşünas (klassik ədəbi irsimizin tanınmış tədqiqatçısı), mətnşünas (Azərbaycan əlyazmaşünaslıq elmimizin əsasını qoyanlardan biri) və qiymətli bədii tərcümə əsərlərinin müəllifi (Xaqani, Nizami, A.A.Bakıxanov kimi klassiklərin əsərlərinin tərcüməçisi) Məmmədağa Sultanov təkcə şeir və bədii nəsr nümunələri ilə deyil, həm də qiymətli dramaturji irsi ilə də XX əsr Azərbaycan ədəbiyyatı tarixində özünəməxsus yeri olan ədiblərimizdəndir. Onun kiçik həcmli pyesləri: yumaristik dialoqları, satirik səhnəcikləri, uşaqlar üçün qələmə aldığı təmsilvari pyesləri və bir neçə iri həcmli səhnə əsərləri müəllifi bir dramaturq kimi öyrənməyə də imkan veir. Belə qənaət əldə olunur ki, Məmmədağa Sultanov özündən əvvəl yaşamış və müasiri olan dramaturqların yaradıcılıq üslubunu mənimsəmiş və özünəməxsus yol tutmağı bacaran dramnəvisdir.

**ƏSAS MƏTN.** XX əsr Azərbaycan ədəbi ictimaiyyətinin görkəmli isimlərindən biri də Məmmədağa Sultanovdur. İlk mətnşünas və əlyazmaşünaslarımızdan olan M.Sultanov eyni zamanda şair, mütərcim, ədəbiyyatşünas kimi də tanınmışdır. Onun həyat yolunu izləmək Azərbaycan elmi və mədəniyyətinin Sovetlər Birliyi nəzdində inkişaf tarixini daha dərindən öyrənməyə, ötən əsrdə filoloji fikrimizin qazandığı nailiyyətlərə bir daha nəzər salmağa imkan verir. Görkəmli ədibin bədii yaradıcılığının böyük bir qismini poetik əsərlər və nəsr nümunələri təşkil edir. Bununla yanaşı, ədibin irili-xırdalı, bir neçə dramatik əsəri də var ki, XX əsr Azərbaycan ədəbiyyatının qiymətli inciləri hesab oluna bilər.

M.Sultanov Əlyazmalar İnstitutunun kargüzarlıq arxivində mühafizə olunan şəxsi işinə daxil edilmiş tərcümeyi-halında hələ "Təməddün" məktəbində təhsil alarkən böyük nasir və dramaturq Cəlil Məmmədquluzadənin "İranda hürriyyət" adlı hekayəsi əsasında pyes yazdığını və bu əsərin ilk dəfə elə həmin məktəbdə də səhnəyə qoyulduğunu qeyd edir (Sultanov, 1987).

M.Sultanovun AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun fondunda mühafizə olunan şəxsi arxivində də yazıçının əksər yaradıcılıq nümunələri kimi dramaturji əsərləri qorunmaqdadır. Bu qeyri-mətbu əsərlərin əksəriyyəti ya makina çapı, yaxud əlyazma nüsxəsi variantındadır.

Kiçik həcmli dram əsələrini müəllif "Miniatürlər" və "Yumoristik dialoqlar" başlıqları altında ümumiləşdirmişdir. Hər iki topluda cəmiyyətdəki naqisliklər və sosial problemlər tənqid hədəfi seçilib. Bəzən bir, ya da bir neçə səhifə həcmində olan bu dramatik parçalarda böyük mətləblər gizlənir, ilk baxışdan önəmli görünməsə də, əslində həlli vacib olan problemlər müzakirəyə çıxarılır.

**SATİRİK-YUMORİSTİK DİALOQLAR.** Bəzən bu satirik-yumoristik dialoqların adları belə onların məzmunu haqqında məlumat verir. Məsələn: "Yazıçı və tənqidçi", "İki yazıçı", "İki rəssam", "Professor və student", "Rejissor və gənc aktrisa", "Univermaq müdiri və mühasib", "Direktor və işçi", "Aqronom və qoca kəndli" (Yaxud "Cavan aqronom və qoca bağban"), "Milis və oğru", "Cavan və həkim", "Vəkil və qonşu arvad", "Qonaq və ev yiyəsi" və s. bu qəbildəndirlər.Adlarından da göründüyü kimi, bu satirik-yumoristik məzmunlu dramatik səhnəciklərin mövzusu M.Sultanovun ya peşəkar: elmi, pedaqoji, yaradıcılıq fəaliyyəti ilə bağlıdır, ya onu əhatə edən mühitdə rastlaşdığı hadisələrdən qaynaqlanır, ya eşitdikləri, ya da mətbuatdan oxuduqları ilə əlaqədardır. Həmin əsərləri oxuduqda görürsən ki, müəllifin güclü müşahidə və ümumiləşdirmə məharəti var.

**"Yazıçı və tənqidçi"** miniatürü cəmi dörd cümlədən ibarətdir. Lakin bu səhnəciklə müəllif durğunluq dövrünün ədəbiyyatının həqiqi üzünü ortaya qoya bilir:

*"- Mənim povestimi oxumusan?*
- *Oxumuşam.*
- *Görürsən, orada nə qədər təzə, doğru-düzgün əhvalatlar təsvir edirəm.*
- *Amma təzələr doğru deyildir, doğrular təzə"*(Sultanov, 1986).

Dialoqdan aydın olur ki, Sovet dövlətinin durğunluq dövrü adlandırılan mərhələsində yazılan nəsr nümunələrində ədəbiyyatın müasirlik və realizm prinsiplərinə çox vaxt riayət olunmur, bədii sənət əsərləri daha çox konfliksiz və qəhrəmansız olub, sanki öhdəliyin vaxtında yerinə yetirilməsi məqsədi ilə qələmə alınırdı.

Belə qısa, lakin mənalı səhnəciklər M.Sultanovun dramatik irsində çoxdur. Məsələn, **"İki cavan"** miniatüründə iki dostun söhbəti gənclərimizin öz həyat yoldaşlarına evlənənə qədər göstərdiyi diqqət və ehtiramı ailə həyatı qurandan sonra davam etdirməmələri tənqid edilir. Evlənənə qədər kino, kafe,

parklara gedən gənclərin ailə həyatı qurandan sonra həyat yoldaşlarını evdə ev işlərinə məhkum etməsi cəmi üç cümlə ilə ifşa olunur. (Sultanov, 1986).

**"Direktor və dostu Əhməd"** satirik səhnəciyi də ictimai əhəmiyyəti ilə maraq doğurur. Yazıldığı tarixdən illər ötsə də, aktualdır. Direktor dostundan çap işlərinin çox olduğunu bəhanə gətirərərk bir makinaçı tapmasını xahiş edir. Amma niyyətinin özünə "klassik katibə" axtarmaq olduğu gələcək işçinin tələb olunan şəxsi keyfiyyətləri ilə bağlı irəli sürdüyü şərtlərdən aşkara çıxır. Onun tələbləri belədir: *"Cavan olsun", "gözəl olsun", "işarəni tez başa düşsün", "sirr saxlayan olsun"*. Dostunun: *"Həm də yaxşı çap edə bilsin?"* – sualına: *"O vacib deyil, yavaş-yavaş öyrənər"*, – cavabı da direktorun niyyətini ortaya qoyur. (Sultanov, 1986).

**"Cavan aqronom və qoca bağban"** əsərində isə yazıçının yaratdığı ali savadlı aqronom obrazının məhsuldarlığı artırmaq üçün *"super-fosfat"* gübrəsi vermək təklifi ilə alma və armud ağaclarını bir-birindən seçə bilməməsi təzadı əslində müəllifin ali məktəb təhsilinin effektiv olmamasından şikayətidir. M.Sultanov nəzəriyyənin təcrübədən ayrılmasından narazıdır. (Sultanov, 1986).

**"Cavan və həkim"** satirik səhnəciyi də dövrümüzün əsas problemlərindən birinə – ailələrin qız övladdan daha çox, oğlan uşağına üstünlük verməsinə həsr olunub. Ailə həyatı qurmaq istəyən bir gəncin: *"... qorxuram arvadım qız doğa, mən oğlan istəyirəm. Necə bilmək olar ki, bu aldığım xanım qız doğacaq, ya oğlan ?"* – sualı həmin problemin cəmiyyətimizdəki qızı olan ataların qınanmasından qaynaqlandığını göstərir.

**MİNİATÜRLƏR.** Yazıçının "Miniatürlər" satirik-yumoristik pyeslər toplusu da diqqətəlayiqdir. Bu topluya "Ana, oğul, dayı", yaxud "Mehdi müəllim, ana və oğul", "İfşa", "A, ı, ıhıy!" və "Hədiyyə" əsərləri daxildir.

**"Ana, oğul, dayı"** ("Mehdi müəllim, ana və oğul") miniatüründə ana fizika-riyaziyyat üzrə ali təhsil alan oğlunun şair olmasından qardaşına şikayətlənir. Kamran isə "Kafi" təxəllüsü seçərək müxtəlif mövzularda şeir yazır. Amma yazdıqlarının yüzü birə dəymir, biri də heçə. Dayısı ondan yazdıqlarından birini oxumağı xahiş edəndə o: *"Qəzəl oxuyum, ya rübai?", "Lirik olsun, ya siyasi?", "Hava ilə oxuyum, ya deklamasiya ilə?", "Çahargah üstə, ya şur üstə?"* – deyib, dayısını ələ salır (Sultanov, 1986).Əsərdən belə nəticə çıxır ki, ali məktəbdə dərslərini axsadıb, imtahanlardan kafi alan Kamran guya şair olmağı ilə özünə bəraət qazandırmaq istəyir..

**"İfşa"** telenovellası isə ailə-məişət mövzusundadır. Son qeyd olunan pyes tacik yazıçısı Səməd Qəninin "Maqnitofon" hekayəsinin motivləri əsasında qələmə alınıb.

Məmmədağa Sultanovun "İfşa" pyesinin baş qəhrəmanı gənc jurnalist Qabildir. Əsər onun jurnalist həmkarı Qasımla söhbəti ilə başlayır. Qasım dostuna hər hansı bir Sosialist əməyi qəhrəmanı haqqında yazmaqla səhifəni doldurmağı məsləhət görür. Qabil isə həyat yoldaşı Münəvvərin qısqanclığı ucbatından ezamiyyətə gedə bilməməsindən şikayətlənir. Kiminsə iki dəlicəsinə bir-birini sevən gəncin arasını vurmasından şübhələndiyini, bu işdə ara qarısı Xulcun xalanın əli olduğunu güman etdiyini deyir. Qasım isə Nəzakət xalanın (Münəvvərin anası) onu yoldan çıxarmasını ehtimal edir və dostundan bu məsələni araşdırmaq üçün icazə istəyir.

Münəvvər gündə bir qızla gəzən, subay Qasımın Qabillə dostluğunu bəyənmədiyini, bu yoldaşlığın onu pis yola çəkəcəyini deyir. O, Qasımın gecə-gündüz yazmasına rəğmən, az qazandığını, meyvəsatan qardaşından ibrət götürməli olduğunu bildirir. Qardaşının arvadına bahalı zinət əşyaları aldığını nümunə gətirib, Qabilin isə qazancının haradan gəlib haraya getdiyinin bilinmədiyindən şikayətlənir. Və nəhayət, ərinin ezamiyyətə getməsinə qəti etiraz edir.

Qabil etiraza məhəl qoymur. Bir neçə gündən sonra o, ezamiyyətdən qayıdır. Əlindəki böyük gül dəstəsini Münəvvərə təqdim edib onun ad gününü təbrik edir. Həyat yoldaşı gülü alıb, bahalı hədiyyə gözlədiyini bildirir: *"Məsələn, bir importni sapaşki, ya kremplin, ya üzük, nə bilim, qızıl saat ala bilməzdin?"* – deyir (Sultanov, 1986, 4).

Qasım isə Münəvvərə maqnitofon hədiyyə edir. Elə bütün işlər də bundan sonra başlayır. Qasım düyməni basıb, xəbərsiz otaqda danışılanları yazır. Camaat süfrə ətrafına toplananda isə maqnitofondan musiqi əvəzinə, Nəzakət xalanın qızı ilə danışığı eşidilir. Onun Münəvvəri necə Qabilə qarşı doldurması aydın olur. Münəvvər hamının önündə ərindən üzr istəyir.

Ailə-məişət mövzusunda qələmə alınan bu əsərdə müəllif özünün jurnalist təcrübəsindən çıxış edərək bu peşə sahiblərinin fəaliyyəti ilə bağlı maraqlı faklar təqdim edir, eyni zamanda Sovet dövründə mövcud süni defisit rejiminin alverçilər üçün böyük imkanlar yaratdığının, guya bərabərlik

üzərində qurulmuş sovet cəmiyyətinin bir təbəqəsinin zənginləşməsinə zəmin yaratdığını üstüörtülü şəkildə obrazların nitqi vasitəsilə təqdim edir. M.Sultanov Sovet dövlətində öz zəhməti ilə çalışan təbəqəsinin min bir fırıldaqla məşğul olan qruplara nisbətən, daha zəif dolandığını qəhrəmanı Münəvvərin dili ilə təqdim edir, həmçinin yeni texnoloji nailiyyətlərin cəmiyyətə necə sirayət etdiyini də göstərmiş olur.

Müəllifin **"A, ı, ıhıy!..."** adlı maraqlı yumoristik novellası da üstüörtülü şəkildə olsa da, Sovet dövrünün əsas problemlərindən biri olan alverlə mübarizəyə həsr olunub. O qədər də iri olmayan əsərin qəhrəmanları bazarkom Tutu və onun əri Sadıqdır.

Pyesin ilk səhnəsində Tutu ilə qonşusu Şərəbanının dialoqundan bəlli olur ki, birinci bazarı evinə daşımaqla, ikinci isə evindəcə import malların alveri ilə məşğuldur. Bu iki obraz arasındakı dialoqdan Tutunun bir günlük gəlirinin başqalarının bir aylıq maaşından çox olduğu bəlli olur. Əsərdə cin vurma kimi batil inanclar, fırıldaqçı mollalar da tənqid hədəfidir. Lakin əsərin süjetinin ana xəttini Tutunun corab fabrikində təşviqatçı işləyən ərini istismar etdiyi üçün onun özünü lallığa vurması hadisəsi təşkil edir. Corab fabrikində işləsə də, oradan bir dənə də olsun müftə "bezrazmerni" corab gətirməyən Sadıq hər sözdən dava üçün bir bəhanə çıxaran, ərini səbəbsiz qısqanan arvadından yaxa qurtarmaq üçün lal olmağı məqbul bilir. "Xəstə"ni müalicə üçün gələn həkimin onun xəstəliyinin səbəbinin həyat yoldaşı olduğunun canlı şahidi olandan sonra Tutuya müraciətlə: *"O, nəcib adamdır, sən nanəcib"*, – deməsi əsərdəki iki baş qəhrəmanın lakonik xasiyyətnaməsidir desək, yəqin ki, yanılmarıq (Sultanov, 1986, 7).

**"Hədiyyə"** adlı satirik səhnəcik Sovet dövrünün əsas problemlərindən biri olan rüşvətxorluğun ifşasına həsr olunub. Əsərdə Əhməd dostu, ticarət işçisi ("torqun rəisi") Qasıma, belə demək mükünsə, nazirə rüşvəti hədiyyə adı ilə təqdim etməyin üsul və vasitələrini anladır. Bahalı hədiyyədənsə, paketdə beş-on min manat pul verməyi məsləhət bilir. Dostlar arasında söhbətdən o da aydın olur ki, "hədiyyə"nin iri əskinaslarla təqdim olunması da vacib şərtdir. Təəccüblü odur ki, Qasımın: *"O qədər yüzlüyü mən haradan tapım?"* – sualına Əhmədin: *"Hər yüzlüyü yüz on manata dəyişən var"*, – cavabı qarşı tərəfin razılığı ilə qarşılanır. (Sultanov, 1986, 1). Söhbətdən "hədiyyə"yə əlavə olaraq şeirlə təbriknamələrin də yazdırıldığı bəlli olur.

Əsər müəllif tərəfində satirik novella kimi dəyərləndirilir. Belə ki, gözlənilməz sonluqla bitir. Sona doğru dostların şirin söhbətini Kazım adlı birisi pozur, əlindəki qəzeti dostlarına göstərərək deyir: "*Yazıblar ki, əli əyridir, kadrları düz seçməyib, qohumları çəkib iş başına, fiktiv aktlarla təzə dərilmiş meyvələri spisat elətdirib, nə bilim, maşın alıb satıb və ilaxır və sairə".* (Sultanov, 1986, 2).

Məmmədağa Sultanovun tədqiqata cəlb etdiyimiz kiçik həcmli dram əsərləri – həm satirik-yumoristik dialoqlar (Yazıçı və tənqidçi", "İki yazıçı", "İki rəssam", "Professor və student", "Rejissor və gənc aktrisa", "Univermaq müdiri və mühasib", "Direktor və işçi", "Aqronom və qoca kəndli" (Yaxud "Cavan aqronom və qoca bağban"), "Milis və oğru", "Cavan və həkim", "Vəkil və qonşu arvad", "Qonaq və ev yiyəsi"), həm də müəllifin özünün təbiri ilə desək miniatürlər ("Ana, oğul, dayı", yaxud "Mehdi müəllim, ana və oğul", "İfşa", "A, ı, ıhıy!" və "Hədiyyə" əsərləri) Azərbaycan dramaturgiyasının nadir incilərindəndir. Belə ki, komediya ənənəsinə müvafiq qələmə alınan həmin əsərlərdə XX əsrin 70-80-ci illərində xalqımızın məişətini, cəmiyyətdəki problemləri, valideyn-övlad, ər-arvad, qonşular arasındakı münasibətləri görə bilir, daha çox sovet quruluşu üçün xarakterik olan məsələlər istisna olmaqla, müəllifin qaldırdığı problemlərin bir çoxunun dövrümüzdə də aktual olduğunun şahidi oluruq. Məhz ona görə deyirik ki, Məmmədağa Sultanovun kiçik həcmli səhnə əsərlərinin nəşri, onlardan bəzilərinin səhnələşdirilməsi ədəbiyyatın əsas missiyası olan cəmiyyəti doğru istiqamətə yönəltmək vəzifəsini icra etməyə qadirdir. Bu əsərlərin təhlili onu da söyləməyə imkan verir ki, müəllifin vaxtı ilə qaldırdığı bəzi problemlərin həll olunmaması bu gün daha böyük fəsadlara yol açа bilib.

**ƏDƏBİYYAT SİYAHISI**

1. Sultanov, M.S. (1987), Tərcümeyi-hal. AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun sənəd arxivi, Fond № 1, Siyahı № 6, qovluq № 19 – İşdən azad olunan əməkdaşların şəxsi işləri: "M" - "E", 1945-1987-ci illər, 391.
2. Sultanov, M.S. (1986), Yazıçı və tənqidçi. AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun elmi arxivi, Şəxsi Fond № 7, Siyahı № 71, iş № 209 – Yaradıcı xarakterli materiallar (povest, novella və s.), 1.
3. Sultanov, M.S.(1986), İki cavan. AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun elmi arxivi, Şəxsi Fond № 7, Siyahı № 71, iş № 209 – Yaradıcı xarakterli materiallar (povest, novella və s.), 1.
4. Sultanov, M.S. (1986), Direktor və dostu Əhməd. AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun elmi arxivi, Şəxsi Fond № 7, Siyahı № 71, iş № 209 – Yaradıcı xarakterli materiallar (povest, novella və s.), 1.
5. Sultanov, M.S. (1986), Cavan aqronom və qoca bağban. AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun elmi arxivi, Şəxsi Fond № 7, Siyahı № 71, iş № 209 – Yaradıcı xarakterli materiallar (povest, novella və s.),1.
6. Sultanov, M.S. (1986), Ana, oğul, dayı. AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun elmi arxivi, Şəxsi Fond № 7, Siyahı № 71, iş № 209 – Yaradıcı xarakterli materiallar (povest, novella və s.),1-2.
7. Sultanov, M.S. (1986), İfşa. AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun elmi arxivi, Şəxsi Fond № 7, Siyahı № 71, iş № 209 – Yaradıcı xarakterli materiallar (povest, novella və s.),1-6.
8. Sultanov, M.S. (1986), A, ı, ıhıy!... AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun elmi arxivi, Şəxsi Fond № 7, Siyahı № 71, iş № 209 – Yaradıcı xarakterli materiallar (povest, novella və s.), 1-7.
9. Sultanov, M.S. (1986), Hədiyyə. AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun elmi arxivi, Şəxsi Fond № 7, Siyahı № 71, iş № 209 – Yaradıcı xarakterli materiallar (povest, novella və s.), 1-2.

# TÜRKDİLLİ POEZİYANIN ULU USTADI

(Filologiya elmləri)

**Kərimova Arzu**
Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi,
Filologiya fakültəsi, dilçilik bölməsi
arzukarimova15@gmail.com
Bakı, Azərbaycan

**Xülasə**

Sehirli söz hörgüsünə malik bayatı, gəraylı, qoşma, təcnis və dördlüklərdən ibarət böyük "Divan"ı, "Nəsihətnamə" adlı 362 beytlik məsnəvisi olan Yunus Əmrə (1240-1320) türkdilli xalqların ədəbiyyatı tarixində poeziyanın ulu ustadıdır.

Türk yazılı ədəbi-bədii dili tarixi XIII əsrdən Mövlana Cəlaləddin Rumi, onun oğlu şair Sultan Vələd və "az söz ərən mülküdür, çox söz heyvan yüküdür"– məramı ilə qələmə sarılan Yunus Əmrə yaradıcılığı ilə geniş inkişaf yoluna düşmüşdür.

Ancaq bir həqiqəti də unutmaq olmaz ki, "eşq peyğəmbəri" sayılan Mövlana Cəlaləddin və onun oğlu Sultan Vələd fars dilində yazmışlar. Ona görə də eyni əsrdə Azərbaycanda Həsənoğlu, Anadoluda Yunus Əmrə doğma ana dilində yazılan poeziya nümunələrinin ilk hünərvər yaradıcıları sayılmaqdadır.

"Dədə Qorqud"dakı poeziya nümunələri qədər zərif, ahəngdar və ibrətamiz söz incilərindən də göründüyü kimi, Yunus Əmrə elə sadə və aydın, elə şirin, ibrətli və nurlu bir dildə yazıb-yaratmışdır ki, onun şeirləri türkdilli xalqın oxucusu üçün ana nəfəsi kimi doğma, ana südü qədər saf və əzizdir. Elə buna görə də, 800 ilə yaxın il ərzində Yunus Əmrə poeziyası alınmaz, uçulmaz poetik söz qalası kimi öz varlığını qoruyub-saxlamışdır. Dahi şair öz şeiri-sənəti ilə ürəkləri fəth etmiş, şairin "qəlbdən uca dağ olmaz" inamı tarixin sınaqlarından doğru çıxmışdır.

Yunus Əmrənin həyat eşqi sanki Nizami Gəncəvi və Cəlaləddin Rumi dühasından mayalanmış, eyni zamanda, özündən sonra gələn Nəsimi, Xətai, Füzuli, Qaracaoğlu, Aşıq Veysəl, Aşıq Ələsgər kimi söz sərraflarının ilhamlı yaradıcılıq yolunda ilk örnək, ilk qaynaq, ilk dirilik çeşməsi olmuşdur.

Açar sözlər: Yunus Əmrə, poetik, ədəbi-bədii dili tarixi.

## THE GREAT MASTER OF TURKISH POETRY

**SUMMARY**

Yunus Emre (1240-1320), who has a large "Divan" with a magical structure of words, consisting of stanzas, couplets, tajnis and quatrains, and a 362-verse masnav called "Admonition", is a great master of poetry in the history of the literature of Turkic-speaking peoples.

The history of the written Turkish literary and artistic language has been on a wide development path since the 13th century with the creativity of Mevlana Jalaladdin Rumi, his son the poet Sultan Valad, and Yunus Imre, who wrote with the motto "a few words are the property of the land, many words are the burden of animals". However, we must not forget the fact that Maulana Jalaluddin, who is considered the "prophet of love", and his son Sultan Valad wrote in Persian. Therefore, in the same century, Hasanoglu in Azerbaijan and Yunus Emre in Anatolia are considered the first professional creators of poetry examples written in their mother tongue. As can be seen from the pearls of words as elegant, harmonious and instructive as the examples of poetry in "Dade Gorgud", Yunus Emre wrote in such a simple and clear, sweet, instructive and bright language that his poems for the reader of a Turkic-speaking nation, it is as native as a mother's breath, pure and dear as a mother's breast.

That is why, for almost 800 years, Yunus Emre's poetry has preserved its existence as an impregnable, indestructible fortress of poetic words. The genius poet conquered hearts with his poetry and art, and the poet's belief that "there is no mountain higher than the heart" has been proven true by the trials of history. Yunus Emre's love of life seems to have been fertilized by the genius of Nizami Ganjavi and Jalaladdin Rumi, and at the same time, he was the first example, the first resource, the first fountain of vitality in the path of inspired creativity of the wordsmiths who came after him, such as Nasimi, Khatai, Fuzuli, Karacaoglu, Ashiq Veysel, Ashiq Alasgar.

Keywords: Yunus Emre, history of poetic, literary and artistic language.

Giriş. Yunus Əmrə insanın həyat eşqini dünyanı və kainatı bir nizamda saxlayan yenilməz qüvvə sayır, öz divanını “eşq kitabı” adlandırır və bildirir ki, “eşq– aqilləri çaşıran, dəryaları coşduran odlu bir nəsnədir”:

Yürüyürəm yana-yana,
Eşq boyadı məni qana,
Nə aqiləm, nə divanə
Gəl gör məni eşq neylədi?!

Azərbaycanın Qax rayonundakı ünvan da nəzərə alınmaqla, bir sənət fatehinin on yerdə türbəsinin varlığı da aydın göstərir ki, Yunus Əmrə bütünlükdə elin yaddaşı, onun poeziya gülşəni isə doğma dilin yaddaşıdır.

Yunus Əmrə XIII əsrin ikinci yarısı və XIV əsrin birinci qərinəsində əski Anadolu türkcəsinin ilk görkəmli yaradıcısıdır. F.K.Timurtaş bu barədə yazırdı: “Türk milləti Yunus poeziyasında özü öz dilini və öz mənəviyyatını tapmışdır”.[3, 8]

Onun “Güldəstə” adlı şeirlər kitabı “Minacatı Məhəmməd”lə açılır. Yunus Əmrənin nəzərində Məhəmməd- peyğəmbərlər sərvəri, dinin dirəyidir…Şəriət üslübu-haqq dilidir:

Canım qurban olsun ulu yoluna,
Şəfaət eylərsən kəmtər quluna…
Sən haqq peyğəmbəri şəksiz, gümansız,
Sənə uymayanlar ölər imansız,
Aşıq Yunus neylər dünyanı sənsiz,
Adı gözəl, özü gözəl Məhəmməd?! [1, 97]

Şair allahı və onun ən nurlu bəndəsi Məhəmmədi xeyirxahlıq, lütfkarlıq, rəhimdillilik və həqiqət yolunda ümid qibləsi sayır, haqq-ədalətli olduğunu vurğulayır. Məhəmmədin mərhəmətdə böyüklüyü “Xudanın cavabı” şeirində “Ümməti məndən dilədin, ümmətin oda yaxmaram, suçun başına qaxmaram, bəndə çözündən çıxmaram, bağışlaram ümmətini” misraları ilə, şairin bu ucalıq qarşısında heyrəti və sonsuz sevinci isə “yüz min şükür sultanımız” alqışı ilə vəsf olunur.

Şəriət, təriqət yoldur gedənə,
Ədalət, mərifət ondan içəri…
Məni məndə demə, məndə deyiləm,
Bir mən vardır məndə məndən içəri. [1, 102]

Bu inamla Yunus Əmrə yaradını və yaranmışları vəhdətdə götürür, insan qəlbində Məhəmməd nurunu Günəşə bərabər tutur, üç pilləli: şəriət, təriqət və həqiqət özüllü sufi təlimini yaymaq yolunda Həllac Mənsur, Fəzlulla Nəimi və İmadəddin Nəsimi ilə bir məqamda dayanır.

Təkcə Anadoluda deyil, bütün Asiya ölkələrində bu təlimin geniş vüsət almasına çalışır, xeyirlə şərin, yaxşı ilə yamanın insanın öz içində olduğunu, dünyanı dərk etmək işinin insanın özü-özünü dərk etməsindən başlandığını təbliğ edir.

Yunus poeziyasında dünya, insan və təfəkkür bütövlüyü var, insanın elmi, bədii, ictimai-fəlsəfi, etik, estetik və dini dünyagörüşünün təbii vəhdəti, universal üslub kamilliyi və tamlığı vardır. Onun lirikasında xalqın həyat, adət və ənənəsi, zövqü və psixologiyası, allaha etiqadı, şəxsiyyət azadlığı, islam dini tarixində müqəddəs şəxsiyyətlər, məkanlar və kitablar, cismani və mənəvi gözəlliklər, ümumbəşəri duyğu və düşüncələr al-əlvan bədii boyalarla naxışlanır: "Şəriət bir gəmidir, dəryası həqiqətdir. Mumsuz baldır şəriət. Elm özünü bilməkdir…Bir zərrəcə haqdan ayrı gözüm heç nə görməz mənim" və s.

Yunus Əmrə şeiri türkcə poetik deyim tərzinin, kamil bədii yaradıcılıq üslubunun ən sərrast aynasıdır. Onda tanrı sevgisi, dünyəvi məhəbbət ümman kimi çağlayır.

Türkdilli tayfaların həyat və mübarizəsini əks etdirən "Kitabi-Dədə Qorqud"dakı "gəlimli, gedimli dünya, son ucu ölümlü dünya" ifadəsi elə bil bu poetik məramların nüvəsidir.

Yunus Əmrə zəmanəsinin qüdrətli söz sərrafıdır və bədii yaradıcılıq haqqında onun öz poetik görüşləri, fərdi üslub konsepsiyası vardır. "Az söz ərən mülküdür" deyən şair bədii yaradıcılıqda lakonikliyi əsas keyfiyyət kimi qiymətləndirir:

Bir toyu toylamaq gərək,
Bir soyu soylamaq gərək,
Elə söz söyləmək gərək,
Mələklər də bilməz ola.
Elə gövhər bulmaq gərək,
Heç bir sərraf bulmaz ola. [1, 118]

Yunus poeziyası çox ibrətli bir həyat dərsliyi, əxlaqi nəsihətlər mücrüsüdür. Yunus Əmrə kimi bənzərsiz ədəbi şəxsiyyətlər, obrazlı söz ustaları həyatda çox nadir hallarda yetişir, yüz ildən bir doğulur. O özü də bu həqiqəti dərk etdiyi üçün deyirdi:

Yunus, məni haqqa yetir,
Hər şeydən bir ibrət götür,
Özün kimi bir ər gətir,
Cahana heç gəlməz ola. [1, 83]

**Nəticə.** "Güldəstə"ni bir tədqiqatçı kimi, məqsədli və diqqətlə oxuyan hər bir kəs bu nəticəyə gəlir ki, Yunus Əmrə şeiri türkdilli ədəbiyyatlar tarixində xəlqilik ruhunun əzəməti, heca vəzni üçün daha xarakterik olan sənətin qızıl bölgü qanunauyğun ölçü və nizamı, rəvan fikir axarı, sərrast söz düzümü, dil zənginliyi və poetik əlvanlığı, hikmətlilik və ibrətlilik tutumu ilə dünyanın hər yerindən görünən poeziya zirvəsidir. Elə bir zirvə ki, orda nə Ay batır, nə Günəş sönür. Elə buna görə də onun aşiqliyi ilə ölməz olduğunu söyləməyə, "Əgər aşiq isəm–ölməzəm artıq!" deməyə böyük mənəvi haqqı vardır.

Beləliklə, Yunum Əmrə türkdilli xalq şeirinin inkişaf yolunu Günəş kimi nurlandırıb, sözdən əbədi poeziya tonqalı çatıb Anadoludan Yeniseyə, Hind okeanından Balkan yarımadasına, Karpatdan Altay-Tyan-Şan dağlarına qədər böyük bir ərazidə türkdilli el-obalara ərməğan paylamışdı.

Yunus Əmrə poeziyası, ümumiyyətlə, insan təfəkküründün, xüsusən də türk xalqları təfəkküründün eyniyyət qanununa tam uyğun bir tərzdə hamı tərəfindən təmiz dağ havası kimi asan udulur, hər kəsə doğma ana laylası tək xoş gəlir, sanki bütün islam dünyasını birliyə və yekdilliyə çağırır:

İkiliyi at, gəl birliyə yet,
Dili bir olan ayrı dolanmaz.[1, 24]

Belə bir misal var: "Əgər bir olsa beş barmaq, müşgüldür onu sındırmaq. Əldəki barmaqlar ayrı-ayrılıqda heç nədir, birləşəndə qüvvətli yumruq olur". Odur ki, Yunus Əmrə poeziyası bu gün də öz ideya-bədii dəyərini saxlamaqdadır.

Müasir Azərbaycan poeziyasında yaradıcılığı, dil aydınlığı və lakonikliyi, poetik fikir əlvanlığı, müdrikliyi və ibrətliliyi ilə daha çox seçilən, qüdrətli söz ustadı, Yunus Əmrə kimi "şeir yükünü

gövhərdən tutan" şair Məmməd Aslanın aşağıdakı misralarında şeir-sənət vurğunlarının ürəyi oxunur, sonsuz sevgisi ifadə olunur:

Salam olsun, qoca Yunus,
Salam, Şərqin söz çeşməsi!
Yüz illərin o üzündən
Türkün aşıb gələn səsi! [2, 113]

Ədəbiyyat

1.Yunus Əmrə. Əsərləri, Bakı: "Öndər" nəşriyyatı, 2004, 326 səh.
2. Məmməd Aslan. Seçilmiş ***əsərləri***. Bakı: Avrasiya press, 2006, 320 səh.
3. Prof.Dr.Faruk K.Timurtaş. Yunus Emre Divanı. Ankara, 1989. 218 səh.

# "DİRİLİK" MƏCMUƏSİNİN XÜSUSİ BURAXILIŞLARI HAQQINDA

**Seyran Qayıbov**
Filologiya üzrə fəlsəfə doktoru, dosent
Bakı Mühəndislik Universiteti
ORCID ID: 0000- 0001- 7434- 6248
**sqayibov@beu.edu.az**

**Xülasə**

Bu tezisdə Azərbaycan mətbuat tarixində özünəməxsus yeri olan "Dirilik" məcmuəsinin 3 nömrəsində dərc olunmuş məqalələrdən bəhs edilmişdir. Bu nömrələrdə dərc olunan yazılar mövzu və məzmun baxımından vəhdət təşkil etdiyi üçün bu nəşrlərin "xüsusi buraxılış" olaraq adlandırılmasını məqsədəuyğun hesab edirik. Bu tezislə eyni zamanda "Dirilik"in nəşr siyasətinin fərqli bir istiqamətinə, onun rəhbərliyinin "xüsusi buraxılış"larla bir hədəfinin, bir planının olduğuna diqqət çəkilmişdir.

**Açar sözlər:** "Dirilik" məcmuəsi, milli şüur, xüsusi buraxılış.

## ABOUT SPECIAL EDITIONS OF THE "LIVELINESS" ("DIRILIK") COLLECTION

**Summary**

In this thesis, the articles published in number 3 of the "Dirilik" collection, which has a unique place in the history of the press of Azerbaijan, have been discussed. Since the articles published in these issues are unified in terms of subject and content, we believe that it is appropriate to name these publications as "special issue". At the same time as this thesis, attention was drawn to a different direction of the publication policy of "Dirilik", that its management has a goal and a plan with "special issues".

**Keywords: "**Liveliness" ("Dirilik") collection, national consciousness, special edition

Azərbaycan xalqının ictimai-siyasi şüurunun formalaşmasında əhəmiyyətli rol oynayan "Dirilik" məcmuəsinin ilk sayı 16 sentyabr 1914-cü ildə, son sayı isə 1 noyabr 1916-cı ildə nəşr olunmuşdur. Məcmuədə müxtəlif məzmunlu yazıların nəşrinə şərait yaradılsa da əsasən milli şüurun formalaşmasına təkan verən əsərlərin nəşrinə üstünlük verildiyini görmək mümkündür. Bu baxımdan

məcmuənin bəzi nömrələrində də qeyd olunduğu kimi, "Dirilik"in milli mətbuatın inkişafında, milli hiss və milli əməllə əsər yazmağa qadir olan yazarların yetişməsində müstəsna xidmətləri olmuşdur.

Məcmuənin 1914-cü ildə 8, 1915-ci ildə 9, 1916-cı ildə isə 11, toplam 26 sayı çap olunmuşdur. Bu saylardan 3-ü bugünkü ifadə ilə "xüsusi buraxılış" mahiyyətində olub demək olar ki, yazıların böyük əksəriyyəti eyni mövzuya həsr olunmuşdur. Qeyd etmək lazımdır ki, bu nömrələrin mündəricəsində yaxud bir əvvəlki saylarda gələcək nömrənin "xüsusi buraxılış" olaraq hazırlanacağı haqqında heç bir məlumata rast gəlinmir. Əsərlərin eyni mövzuya həsr olunduğunu isə başlığından, məzmunundan və yaxud bəzi yazıların giriş hissəsindəki müəllif qeydlərindən görmək mümkündür. "Xüsusi buraxılış"larda "Dirilik"in missiyasına uyğun olaraq milli idealın formalaşmasına, məcmuənin məqsəd yazısında da göstərildiyi kimi "milli dirilik"in yaranmasına təkan verəcək yazılar dərc olunmuşdur.

"Dirilik"in xüsusi buraxılışlarından birincisi məcmuənin nəşrinin ikinci ilində 13 Rəbiül-əvvəl 1333, 16 yanvar 1915 -ci ildə, cümə günü dərc olunmuşdur. "Dirilik"in 9-cu nömrəsi olan bu nəşrdə İslam peyğəmbəri Həzrət Məhəmmədin mövluduna həsr olunmuş yazılara yer verilmişdir. Nəşrdəki doqquz yazının ilk yeddisi bu mövzuda olub yazılardan dördü şeir, üçü isə nəsr əsəridir. Əlabbas Müznibin 38 misradan ibarət "İqraru-iman" (səh 129.), Əbdülxalıq Cənnətinin 36 misradan ibarət "Mövludi-Nəbəvi" (səh 135), Məmməd Tahirin yenə 36 misradan ibarət "Nəti-Nəbəvi" (səh. 135), Seyid Zərgər Mir Ağazadənin 72 misradan ibarət "Mövludi-nəbi münasibətilə" (səh. 141) başlığını almış şeirləri sırasıyla birinci, dördüncü, beşinci və yeddinci yerdə, "Həzrət Məhəmməd: *Sallu aleyhə və səlləm" (*səh. 130-131*)*, "Dövri-cahiliyyətdəki vəziyyət" (səh. 132-134), "Viladəti-Nəbəvi: Sallallahu aleyhi və səlləm" (səh. 136-140) adlı müəllifi göstərilməyən üç nəsr əsəri isə ikinci, üçüncü, altıncı yerdə dərc olunmuşdur.

Həzrət Məhəmmədin mövluduna həsr olunmuş bu nömrədəki yazılar İslam peyğəmbərinin həyatı və peyğəmbərliyi haqqındadır. Məsələn, "Ya Rəsulullah" rədifli "İqraru-iman" adlı nətdə Müznib Həzrət Məhəmmədin peygəmbərliyini vəsf edərək ona peyğəmbərliyin verilməsindən, Qurani-Kərimin nazil olmasından sonra peyğəmbər möhrü ilə insanlarda iman gözünün açılıb onun nuru ilə qəlblərin paklanmasından, Kəbədən bütlərin yığışdırılılmasından, düşmənlərin bağrının qan olmasından bəhs olunmuşdur. Şeirdə qeyd olunmuşdur ki, Həzrət Məhəmmədin peyğəmbər olduğu tarixdən etibarən zina, oğurluq, içki, yalan, hiyləgərlik, qardaş qətli, quldurluq kimi pis əməllər qadağan olunub, səxavətli, rəhmli, çalışqanlıq kimi insanı şərəfləndirən əməllərin təbliğinə üstünlük verilmişdir:

Səni vəsf etməyə fövqəlbəşər bir qüvvə lazımdır.
Nə hacət vəsfinə, vəsfində həqqi-bizzati nazimdir,
Səni bilmək üçün ancaq bu mədhətlər niyazımdır.
Və lakin lazım olmaz şəmsə bürhan, ya Rəsulullah,

Müznib qeyd etmişdir ki, İslam qaydalarına əməl olunduğu dövrdə müsəlmanlar dünyanın cahangiri, ədalətin carçısı, cahanın məşhuru idilər. Nə zaman ki, müsəlmanlar peyğəmbərin yolundan ayrıldılar o vaxtdan başlayaraq zəlil olub, zülm və haqsızlığa düçar oldular, düşmənçilik müsəlmanları əsir etdi:

Nədən ki, hökmünə baxdıq, cahangiri-zaman olduq,
Ədalət kani olduq, həm də məşhuri-cahan olduq.
O gün ki inhiraf etdik, zəlili-insü can olduq,
Əsir etdi bizi hər yerdə üdvan, ya Rəsulullah.

Müznib müsəlmanların bu hala düşməsində ən böyük günahın İslam alimlərinin olduğunu etiraf etmiş, "bir para nadan alim"in böyük vəzifələri, yüksək mənsəbləri ələ keçirdikdən sonra dindən istifadə edərək məmləkəti viran qoyduqlarını qeyd etmiş, beləliklə ümmətin əzəməti, gücü, sədaqəti, imanı yox olmağa başlamışdır:

Oturdu məsnədində alim adlı bir para nadan,
Şəriət söndi, din getdi, məmalik olan həm viran,
O şövkət, ol səlabətdən qalıb bircə quru əfğan,
Fənaya uğramış iqrari-iman, ya Rəsulullah.

Əbdülxalıq Cənnəti də "Mövludi-Nəbəvi" şeirində Həzrət Məhəmmədin anadan olmasından, ona ad verilməsindən bəhs etmiş, bu doğumun bir ulduz kimi Cəzirətül-ərəbdən başlayaraq bütün dünyanı aydınlatmağa başladığını bildirmiş, indiyə kimi belə bir övladın doğulmadığını, bundan sonra

da doğulmayacağına işarə etmişdir. Şeirdə qeyd olunmuşdur ki, doğulan uşaq elə bir övladdır ki, onun əmri ilə dünyanın tamamı gah qiyama, gah səcdəyə durur, adı çəkiləndə isə təmiz adına salam və dualar edilir. Şeirdə qeyd olunmuşdur ki, ərəblər nifaq və küfrdə dünyada məşhur, cəhalət və vəsvəsənin əlində zəbun, cinlərin əsiri idilər. Belə olduğu halda peygəmbər öz qovmünü bu zəlalətdən qurtarmaq üçün çalışmış, özü yetim olduğu halda neçə milyon insana ata olmuş, fəqir olduğu halda isə sultanlardan daha şöhrətli olmuşdur:

Nifaqü küfr ilə məşhuri-dəhr idi ərab.
Zəbuni-cəhli-vəsavis, əsiri-cinnü xümud.
...
Yetim ikən, neçə milyon nüfusə oldu peder,
Fəgir ikən, hamu sultanlara olub məhmud.

Məcmuədəki digər iki nəzm əsəri; Məmməd Tahirin "Nəti-Nəbəvi"i və Seyid Zərgər Mir Ağazadənin "Mövludi-nəbi münasibətilə" adlı şeirlərində də Həzrət Məhəmmədin mövluduna, onun vəsfinə həsr olunmuşdur.

Nəşrin nəsr əsərlərinin ilki-imzasız dərc olunmuş "Həzrət Məhəmməd: *Sallu aleyhə və səlləm"* adlı məqalədə Həzrət Məhəmmədə peyğəmbərliyin nazil olduğu dövrdən əvvəlki illərdə Roma, Yunanıstan, Turan və İranda, ümumiyyətlə dünyanın şərqində və qərbində mövcud olan siyasi, ictimai, dini vəziyyət təhlil olunmuş, xüsusilə Ərəbistan yarımadasında yaşayan insanların inancları, cəmiyyət arasında yayılmış bütpərəsliyin fəsadları, Allahın peyğəmbər qarşısında qoyduğu vəzifələr, ilk fəthlər, İslam dininin dünyada yayılma dövrləri haqqında məlumat verilmişdir (səh. 130-131). İmzasız nəşr olunmuş "Dövri-cahiliyyətdəki vəziyyət" adlı ikinci məqalədə isə İslamiyyətdən əvvəlki dövrdə Roma, Misir, İran, Ərəbistan kimi ölkələrdəki ictimai, siyasi, mədəni həyatdan bəhs olunmuşdur (səh. 132-134). Mövzu haqqındakı üçüncü imzasız "Viladəti-Nəbəvi: Sallallahu aleyhi və səlləm" adlı məqalə siyəri-nəbi məzmunludur. Məqalədə Həzrət Məhəmmədin anadan olduğu gün dünyada baş verən hadisələrdən, valideynlərindən, adının qoyulmasından, süt anasına verilməsindən, ata, ana və babasından, onların vəfatından, əmisi Əbu Taliblə ticarətə getməsindən, qarşılaşdığı hadisələrdən, Həzrət Xədicə ilə olan evliliyindən, uşaqlarından, Hira mağarasına getməsindən, ilk vəhydən, insanları İslama dəvət etməsindən, ilk səhabələrdən, Məkkədə, ümumiyyətlə Ərəbistanda peyğəmbərə qarşı olan üsyanlardan, Məkkəli müşriklərlə olan müharibələrdən, Mədinəyə hicrətindən, Mədinə həyatından ümumi şəkildə bəhs olunmuşdur (səh. 136-140).

Xüsusi buraxılışlardan ikincisi məcmuənin üçüncü ilində, 1 cəmadiyəlaxir 1334, miladi 22 mart 1916-cı il seşənbə günü nəşr olunmuşdur. Məcmuənin 5-ci sayı olan bu buraxılışdakı 9 yazının hər biri 4 fevral 1916-cı ildə vəfat edən Haşım bəy Vəzirovun həyat və yaradıcılığı haqqındadır.

Nəşr olunmuş əsərlərin 7-si şeirdir. Əbdülxalıq Cənnətinin 40 misradan ibarət "Mərhum Haşım bəyin ruhunu tərvih" (səh. 295), Bədrəddin əl Hüseyninin 14 misradan ibarət "Təhəssürat", "Mərhum Haşım bəyin ruhi- pürfütühuna" (səh. 298)[4], imzasız dərc olunmuş 4 misradan ibarət "Haşim bəyə xitabə!" (səh. 298), yenə imzasız 8 beytdən ibarət "Qafqasiya məşahiri-üdəbasından Haşım bəy Vəzirov" ( səh. 299)[5], Seyid Zərgər Mir Ağazadənin 42 misradan ibarət "Şikayət, Haşım bəyin vəfatı münasibətiylə" (səh. 300), Mikayıl Seydinin 16 misradan ibarət "Xəstə şairimiz- Mərhum Haşim bəy üçün" (səh. 300) və Əli Rəcainin 14 misradan ibarət "Mənzumə: Mərhum Haşim bəyə ithaf" (səh. 300) adlı şeirlər sırasıyla jurnalda birinci, üçüncü, dördüncü, beşinci, altıncı, yeddinci və səkkizinci yerdə dərc olunmuşdur.

Əbdülxalıq Cənnəti şeirində "ədibi-danışmənd" olaraq adlandırdığı Haşım bəyə qələmi ilə sanki ölünü diriyə çevirdiyini, xidməti ilə milləti məmnun etdiyini, xalqın elmini artırıb borcunu ödədiyini, ancaq ölümü ilə könüllərdə bir çox arzuların qaldığını ifadə etmişdir.

Çəkdiyin zəhmətin gedərmi hədər,
Haşalillah, yüz kərə haşa!
Əmələn nəxli tezlik ilə səmər
Verər, qəm yemə əsla.

[4] Bədrəddin əl Hüseyni, "Təhəssürat", "Mərhum Haşım bəyin ruhi- pürfütühuna" adlı və "Ey mövti- atəşin sifət, ey baisi-kədər" misrası ilə başlayan 14 misradan ibarət şeirin içərisində "Ərzurum şəhəri" və "Mərhum Yusif İzzətdin həzrətləri"nin rəsmi verilmişdir ( səh. 298).

[5] "Qafqasiya məşahiri-üdəbasından Haşım bəy Vəzirov" adlı və "Zillətindən bu qanlı əyyamın" misrası başlayan 8 beytlik şeirin içərisində Haşım bəy Vəzirovun rəsmi verilmiş ( səh. 299).

Şeirin sonrakı misralarında Cənnəti, Haşim bəyin öz vəzifəsini ifa edərək haqqın rəhmətinə qovuşduğunu, qəbrində rahat uyuması gərəkdiyini, dostlarının onu ziyarətə gəlib, baharın müjdəsini verəcəklərini, məzarına gül saçıb cənnət bağına cevirəcəklərin bildirmişdir.

Şair Bədrəddin əl Hüseyninin "Ey mövti- atəşin sifət, ey baisi-kədər" misrası ilə başlayan "Təhəssürat" adlı şeirində, imzasız dərc olunmuş "Çürüyən cisimdir, həyati-ərz" misrası ilə başlayan "Haşim bəyə xitabə!" adlı şeirdə, yenə imzasız dərc olunmuş "Zillətindən bu qanlı əyyamın" misrası ilə başlayan "Qafqasiya məşahiri-üdəbasından Haşım bəy Vəzirov" adlı şeirdə, "Seyid Zərgər" Mir Ağazadənin "Var olmusan o gündən aya çərxi-pirə zal" misrası ilə başlayan "Şikayət" adlı şeirdə, "Xəstə şairimiz". "Mərhum Haşim bəy üçün" adlı Mikayıl Seydinin ilk misrası "Diriğa! Çeşmi-millətdən Haşim bəy getdi bina tək" adlı şeirdə, "Bilməzəm nərdə uçur ruhun, nə yerdə mədfənin" misrası ilə başlayan Əli Rəcainin mənzuməsində Haşim bəyin millət üçün gördüyü işlər, onun xalqın yolunda çəkdiyi əziyyətlər xatırladılmış, vəfatından duyulan kədər ifadə olunmuşdur.

Məcmuədə Haşım bəy Vəzirova ithaf olunmuş iki nəsr əsərindən birincisi Ə. Müznibin "Qafqasiya məşahiri- üdəbasından Haşım bəy Vəzirov" adlı məqalə böyük ədibin vəfatı münasibətilə qələmə alınmışdır. Haşim bəyin soyundan, anadan olması və tərbiyəsindən, təhsilindən, müəllimliyindən, ictimai fəallığından, erməni ixtişaşlarının qarşısının almaq üçün gördüyü işlərdən, bu fəalliğına görə haqqında ermənilər tərəfindən danoslar yazılaraq Stavropola sürgün edilməsindən, ədəbi fəaliyyətindən, sahib olduğu mətbuat orqanlarından, kitablarından, qədrşünaslığından bəhs olunmuşdur (səh. 296-298).

İkinci nəsr əsəri isə müqtəbisi Abid Mütəllibzadə olan "Böyük Haşim bəy Vəzirov cənablarına kiçik tövhə" başlığı ilə dərc olunmuş "Qəbir fəryadları" adlı hekayədir. Hekayənin birinci hissəsi Ə. Müznibin 4 misradan ibarət mənzuməsi ilə başlayır. Mətndəki hadisə baharın ilk günlərində bir qəbiristanlıqda baş verir. Yağış yağdığı üçün uzun zamandan bəri evdən bayıra çıxmayan hekayə qəhrəmanı pəncərənin qabağında ətrafı seyr edirmiş. Yağışın dayandığını gördükdə çölə çıxaraq sulu otların üzərində, su gölməçələrinin arasından keçərək qəbiristanlığa tərəf getmiş, bir müddət qəbirisatanlığın qapısında dayanıb uzun-uzun qəbirləri seyr etmiş, xəyala dalmış, sonra qapını açaraq içəri daxil olmuşdur. Hekayənin davamında böyük qapının gurultusu ilə qəbiristanlıqdakı sükutun pozulduğundan bəhs edən qəhrəman min bir düşüncə və qorxu içərisində qəbirlər arasında keçərkən birdən yıxılaraq bir qəbrin üstündə düşmüş və o anda gözünə bir qəbir daşı ilişmişdir. Qəbrin üstündəki: "Ey buranı ziyarət edən! sən heçsən"- yazısı onu dərindən sarsmışdır. Bu bölümdən sonra mətnin axırına kimi qəhrəmanın şuraltında bir "heçlik" məhfumunun dolaşdığı ifadə, mətnin ana fikrində isə insanın bir gün bu dünyadan köçüb gedəcəyinə eyham olunmuşdur (səh. 301-302).

Xüsusi buraxılışın üçüncüsü 15 məhərrəmul-haram 1335, miladi 1 noyabr 1916- cı ilin seşənbə günü nəşr olunmuşdur. Məcmuənin 11-ci sayı olan bu buraxılışdakı 9 yazının tamamı uzun sürən ürək xəstəliyindən sonra, 9 sentyabr 1916-cı ildə vəfat edən romantik şairimiz Mikayıl Seydiyə ithaf olunmuşdur. Dərc olunmuş əsərlərdən 7-si şeirdir və bunlardan ilki Əbdülxalıq Cənnətinin 6 bənddən ibarət "Tərkibbənd: Mirzə Mikayıl Seydinin ruhinə tərhim" (səh. 343) adlı müsəddəsidir. İkinci şeir Seyid Zərgər Mir Ağazadənin 44 misradan ibarət "Sevgili şairimiz Mikayıl Seydiyə" (səh. 344) adı ilə dərc olunmuşdur. Əlisəttarın 12 misradan ibarət "Bilməm fələk: Mərhum Seydinin ruhuna ithaf" (səh. 344), Güşənişin 4 misradan ibarət "Səngi-məzar: Mərhum Mikayıl Seydi ruhuna" (səh. 347), Nemət Bəşirin 20 misradan ibarət "İthaf: Mərhum Mikayıl Seydinin ruhuna" (səh. 347), Hacı Əli "Pərişan"ın 20 misradan ibarət "Yürək fəryadı: Mərhum Mikayıl Seydi ruhun yadigar" (səh. 348) və Ə. Müznibin 20 misradan ibarət "Cənab Əzrail" (səh. 348) adlı şeirlər isə sırasıyla jurnalda üçüncü, beşinci, altıncı, yeddinci və səkkizinci yerdə dərc olunmuşdur.

Cənnəti müsəddəsində Seydinin vəfatından duyduğu kədəri ürək yanğısı ilə dilə gətirmiş onun vəfatının millət üçün böyük bir itki olduğunu ifadə etmişdir. Seydinin böyük bir istedad olduğunu qeyd edən şair onun söhbətlərindən aqil insanların zövq aldığını, heyif ki, bundan sonra dostlarının bu söhbətlərə həsrət qalacağını bildirmişdir. Müsəddəsin son bəndində Seydinin adının dünya durduqca xatırlanacağı ifadə olunmuşdur:

Qalacaq zində fəna dəhrdə namın, Seydi!
Bizə sərməşq olacaq tərzi-kəlamın, Seydi!
Buyi-rəhmət ala qəbr içrə məşamın, Seydi!
Ziri-Tuba ola cənnətdə məqamın, Seydi!

"Cənnəti" sübhü məsa ruhuna rəhmətxandır,
Rəhməti-Həqq sana, zeybində sana şayandır!

Şair Güşənişin (Rza Zaki Lətifbəyov) isə "Səngi-məzar" adlı şeirində Seydinin ölmünü belə təsvir etmişdir:

Çıxdı əynindən bu gün ol kisvei-dəhri-mihən,
İndi sətr etdi vücudi- pakını incə kəfən.
Oldu asudə cahanın cövrü zülmündən tənin,
Kaydı-aləmdən oldun mübərra ey piri-kühən.

Şair Nemət Bəşir (Hacıyev Nemət Ağabala oğlu) də Mikayıl Seydinin vəfatı münasibətilə yazdığı və "Ey əzizan! Vəchi vardır, eylərəm kim ahü zar" misrasıyla başlayan şeirində böyük şairin vəfatından dolayı təəssüf hissi keçirdiyini ifadə etmiş, şeirdə dünyanın etibarının olmadığını qeyd edərək Seydinin vəfatı ilə millətin ən parlaq ulduzlarından birinin söndüyünü etiraf etmiş, xalqının yolunda gördüyü işləri sadalayaraq şeirini aşağıdakı misralarla tamamlamışdır:

Ağla ey dil! Ağlayıb bu misrayı dər-yad eylə!
Seydi ya! Ruhun sənin cənnətdə olsun bərqərar...

Hacı Əli Pərişan (Hacı Əli Nardarani) isə "Oldun o gün ki, Seydi! Əcəl damına düçar" misrası ilə başlayan "Yürək fəryadı" adlı şeirində Mikayıl Seydinin xalq üçün gördüyü işlərdən bəhs edərək "Çəkdin zəlalət əhlini rahi hidayətə" misrasıyla onun xalqın maariflənməsindəki roluna diqqət çəkmiş, xalq üçün gördüyü işləri isə "Daim bu xeyrxahlığı eylədin şüar" misrasıyla özətləmişdir. Hacı Əli Pərişan Seydinin xəstələnməsinə və vəfatına duyduğu təəssüfü isə "Çox gördü millətə səni bu çərxi-kəcmədar" misrası ilə işarə etmişdir.

Ə. Müznibin "Qabizülərvah! Ey! bixof olan ahənyürək" misrasıyla başlayan "Cənab Əzrail" adlı şeirində Əzrailə müraciət edərək adının mələk olmasına baxmayaraq Allahın əmri ilə can almaq kimi bir vəzifəsinin olduğuna diqqət çəkmiş, ona verilən əmrə itaət edərək insanların canını aldığını qeyd etmişdir. Bu əmrə uyğun olaraq Əzrailin Seydinin də canını aldığını bildirmiş, şairin ölmünə olan təəssüfünü belə ifadə etmişdir:

Etmədin əsla təkfir sayd qıldın "Seydi"ni
Anı etdin cahanda eyləməz heç bir ...ni
Bir böyük irfanı ağlatdın mələlü möhnətə
Bir yığın insanı yaxdın narü dərdü firqətə
Bir cahan ixvanı qıldın hiddətlə eşqbar
Eylədin qəlbi-həzini həşr olunca dağdar

Məcmuədə Mikayıl Seydiyə ithaf olunmuş iki nəsr əsərindən birincisi "Təracimi-əhval: Qafqasiya məşahiri-şüərasından Mikayıl "Seydi" adı ilə çap olunmuş, ancaq yazının müəllifinin kim olduğu göstərilməmişdir. Mikayıl Seydinin vəfatı münasibətilə qələmə alınmış bu tərcümeyi-hal yəqin ki, ədəbiyyat tariximizdə onun haqqında yazılmış azsaylı məlumatlardan biri, bəlkə də birincisidir. Yazının giriş hissəsində dünyanın faniliyindən bəhs olunmuş, vəfat edən şairlərin, ədiblərin adları çəkilmiş, Mikayıl Seydinin də onların sırasına qoşulduğu, vəfatı ilə dostlarını dərindən kədərləndirdiyi qeyd olunmuşdur. Yazının davamında mərhum Mikayıl bin Məhəmməd bin Rızaqulu bin Mirzənin hicri 1278-ci ildə Bakıda doğulduğu, xanəvadənin içərisində tərbiyə aldığı, məktəb yaşı çatınca qədim üsul ilə açılan məktəbə verildiyi ifadə olunmuş, dövrün məşhur müəllimi Mirzə Həsib Qüdsinin yanında cüzi yazı-pozu öyrəndikdən sonra məktəbdən ayrılaraq alış-verişlə məşğul olmağa başladığı, ticarətdə uğur əldə etdiyi göstərilmişdir. Ticarətlə məşğul olduğu dövrdə söz-sənət məclislərindən uzaq durmayan şairin dövrünün istedadlı şairləri "Cənnəti", "Salik", "Cürmi", "Şahin", "Sabit", "Sürəyya", "Zülalı", "Müştaq", "Mirzə Mehdi", "Müsəvvir", "Yusif", "Məddah", " Hacı Seyid Əzim" kimi şairlərlə ünsiyyətdə olduğu, məclislərdə iştirak etdiyi bildirilmiş, qədim üsul ilə həcv, qəsidə, növhə yazdığı göstərilmişdir. Bundan əlavə şairin tərcümeyi-halında onun şirin qəzəlləri, səlis və milli

şeirləri, satirik jurnallarda çap etdirdiyi nəzmləri olduğu, təxmislər yazdığı göstərilmiş, əsərlərindən nümunələr verilərək qısa təhlillər aparılmışdır. Təcümeyi-halda mərhumun sadəcə şeir yazmaqla qalmadığı xəstə olduğu halda türk aləminin böyük dahisi əmir Əlişir Nəvainin qəzəllərini Azərbaycan dilinə uyğunlaşdırdığı, ancaq müharibə zamanı olduğu üçün çapının mümkün olmadığı, nəşri mümkün olarsa bu kitabın şeirsevərlərə Füzulidən daha çox fayda verəcəyi ifadə olunmuşdur. O da qeyd olunmuşdur ki, Seydi Əlişir Nəvainin başqa şeirlərini də dilimizə çevirmək fikrində olmuşdur. Təcümeyi-halda Seydinin "Dirilik və "İqbal"da açıq imzayla, "Babayi-Əmir", "Əqrəb", "Şəbrəng Əyyar"da isə gizli imzayla şeirlər, təxmislər və mənzumələr yazdığı, milləti yolunda əlindən gələni əsirgəmədiyi, hər zaman yoxsullara yardım etdiyi qeyd olunmuş, ali təhsil almasa da onun təhsil almış bir insan qədər dəqiq, zarafatcıl, əxlaq sahibi olduğu, söhbətlərindən hamının razı qaldığı, insanlara xoş sözlərlə cavab verdiyi ifadə olunmuşdur. "Hürriyəti-nisvan"ın ən şiddətli tərəfdarlarından olan Seydinin tanış-bilişlərinə qızlarına təlim verməyə tərğib və təşviq etdiyi, hətta bir-iki kasıbın qızını məcbur məktəbə göndərdiyi, təhsil xərcini də öz üzərinə götürdüyü, tanışlarını razı salmaq üçün öz qızını da onların qızları ilə məktəbə göndərdiyi qeyd olunmuşdur. Tərcümeyi-halın sonunda isə Seydinin milli işlər barəsində olan yığıncaqların demək olar ki, hamısında iştirak etdiyi, yardımlarını əsirgəmədiyi qeyd olunmuş, ancaq illərdən bəri düçar olduğu ürək xəstəliyindən, bir çox həkimə müraciət etsə də xilas olmayaraq 23 zilqədə 1324-cü ildə, miladi 9 sentyabr 1916-da, cümə günü sübhə yaxın vəfat etdiyi bildirilmiş, təəssüf ki, onu sevənləri yaralamışdır. Mətnin içərisinə Mikayıl Seydinin rəsmi çap olunmuş, altına isə "Mərhum Mikayıl Seydi Məhəmmədzadə" qeydi düşülmüşdür (səh.345-347).

İkinci nəsr əsəri məcmuənin "Hekayə qismi" adlı hissəsində, "Mütəllibzadə Abid" imzasıyla dərc olunan "Həsrət ili" adlı hekayədir. Hekayə qələmə alındığı tarixdən 110 il əvvəl Bakının rus qoşunları tərəfindən işğal olunaraq Rusiya imperiyasına ilhaq edilməsi və şəhərin o tarixdən etibarən uzunmüddətli öz hürriyətinə həsrət qalmasına həsr olunmuşdur (Qayıbov 2024, 34).

Nəticə olaraq, xüsusi buraxılışlarda nəşr olunmuş əsərlərin ümumi mənzərəsi onu göstərdi ki:

1. "Dirilik" xüsusi buraxılışları ilə də ictimai-siyasi şüurun formalaşmasına xidmət etmiş;
2. İctimai-siyasi həyatda cərəyan edən hadisələrə xüsusi yanaşma göstərərək öz münasibətini bildirmiş;
3. Cəmiyyət arasında xüsusi hörməti olan, görkəmli şəxsiyyətlərin vəfatına çox qısa zamanda reaksiya göstərərək şair və yazıçılardan topladığə əsərlərlə onlar haqqında xüsusi buraxılışlar nəşr etmiş;
4. Nəşr etdiyi əsərlərlə günümüzə olduqca qiymətli miras buraxmışdır.

**Ədəbiyyat:**

1. "Dirilik" məcmuəsi, № 9, 1915.
2. "Dirilik" məcmuəsi, № 5, 1916.
3. "Dirilik" məcmuəsi, № 11, 1916.
4. Cənnəti Ə. (2006), Vətən təranəsi.(Toplayanı Ə. Müznib, nəşrə hazırlayanlar və ön sözün müəllifləri Sona Xəyal, Mustafa Mailoğlu). Bakı, Nurlan.
5. Qarayev N. (2012), XIX əsr Azərbaycan ədəbi məclisləri. Bakı, Nurlan.
6. Qayıbov S. (2023), Yarımçıq hekayə: Əmin Abidin "Həsrət ili" hekayəsinin transliterasiyası və təhlili. "Risalə" elmi araşdırmalar jurnalı, 2 (25), 30-40.
7. Məmmədli Q. (2010), İmzalar. Bakı, "Xatun Plyus".
8. Müznib Ə. (2006), Seçilmiş əsərləri (Tərtib edəni, ön sözün və lüğətın müəllifi: İslam Ağayev). Bakı,"Şərq- Qərb".

# DÜNYA ƏDƏBİYYATI

## TÜRKİYƏ HEKAYƏSİNDƏ MÜHARİBƏ MÖVZUSU

**SİMA ŞƏFİZADƏ**
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
Türk xalqları ədəbiyyatı şöbəsi
**sima-adass@mail.ru**
AZƏRBAYCAN, BAKI

**XÜLASƏ**

Bildiyimiz kimi, hekayə janrı bir şəxsin və yaxud bir ailənin taleyinin istər tarixi şəraitdə, istərsə də müasir dövrün problemləri kontekstindən əhatəli şəkildə əks etdirmək baxımından çox az imkanlara malikdir. Buna baxmayaraq, tarixin müəyyən mərhələlərində baş vermiş ictimai-siyasi hadisələri müəyyən aspektlərdən təsvir edə bilən, ümumi siyasi vəziyyəti açıqlayan, tarixi faktlar və yaxud hadisələrdən doğan təəssüratları dəqiqliklə ifadə edərək oxuculara çatdıran hekayələr də mövcuddur. Hekayənin janr imkanlarının bu mövzu kontekstindən araşdırmaya cəlb olunması onun hər dövr üçün aktuallığını şərtləndirir. Baş verən ictimai-siyasi hadisələr bədii mətndə, xüsusilə də hekayələrdə təhlilə cəlb olunmuş, mətnlərdə tarixi hadisələrə münasibət, Türkiyə xalqının milli ruhuna, psixologiyasına təsiri prizmasından təhlilə cəlb edilərək diqqət mərkəzinə gətirilmişdir. İctimai-siyasi proseslərin hekayələrdə təsviri zamanı diqqət edilən əsas məsələ bu vəziyyətə obyektiv yanaşmanın ifadə edilməsi, ictimai-siyasi proseslərin bədii mətnlərdə təsvir formasıdır. Türkiyə yazıçılarının yaradıcılığına nəzər yetirdikdə belə bir mənzərə müşahidə edilir ki, müharibə dövrü və müharibədən sonrakı mərhələdə yazıçılar yaratdıqları bədii mətnlərdə ruh yüksəkliyini məqsədli şəkildə qorumağa çalışmış, qələbəyə inamı və qəhrəmanlığı təbliğ etmişlər. Bu yanaşma bütün dövrlərdə yazılan müharibə mövzulu Türkiyə hekayələri üçün əsas xarakterik cəhət kimi götürülür. Bu isə, istər-istəməz, müharibə mövzulu Türkiyə hekayələrindəki ümumi mənzərəni aşkara çıxarır, amma dövrə görə mövzuya yanaşmada fərqlilikləri də ortaya qoyur. Və belə bir nəticə alınır ki, əski müharibə mövzulu hekayələrdən fərqli olaraq müasir hekayələrdə canlı müharibə səhnələrindən daha çox türkçülüyün, türk qəhrəmanlığının kult səviyyəsində təqdim olunması, obrazın müharibə şəraitindən doğan psixoloji vəziyyəti müasir müharibə mövzulu hekayə üçün daha aktualdır.

**AÇAR SÖZLƏR: Türkiyə, hekayə, müharibə**

**SUMMARY**

As we know, the narrative genre has very few possibilities in terms of comprehensively reflecting the fate of a person or a family, either in historical conditions or in the context of the problems of the modern era. Despite this, there are also stories that can describe social and political events that occurred at certain stages of history from certain aspects, explain the general political situation, and accurately express the impressions arising from historical facts or events and convey them to the readers. The fact that the story's genre possibilities are involved in the research from the context of this topic determines its relevance for every era. The socio-political events that took place were analyzed in the literary text, especially in the stories, and brought to the center of attention from the perspective of the attitude to the historical events in the texts, the impact on the national spirit and psychology of the Turkish people. The main issue that is paid attention to during the description of socio-political processes in stories is the expression of an objective approach to this situation, the form of description of socio-political processes in literary texts. When we look at the works of Turkish writers, we can see that during the war period and after the war, the writers tried to preserve their enthusiasm in the literary texts they created, and promoted faith in victory and heroism. This approach is taken as the main characteristic of Turkish war stories written in all periods. This, inevitably, reveals the general picture in Turkish stories about war, but also reveals the differences in the approach to the topic according to the period. And it is concluded that, unlike the old war-themed stories, in modern stories, the presentation of Turkishness and Turkish heroism at the cult level is more important than live war

scenes, and the psychological state of the character born from the war is more relevant for the modern war-themed story.

**KEY WORDS: Turkish, story, war**

## GİRİŞ

Bildiyimiz kimi Türk dövlətinin İslamdan öncəki qədim tarixi kökləri Hun və Göytürk imperatorluğunun hakimiyyət dövrlərinə təsadüf etmişdir. Bu dövlətlərin var olması cəhdi tarixdə silinməz müharibə faktları ilə yadda qalmışdır. İslamın qəbulu ilə Türk xalqının sosial və mədəniyyət sahəsində önəmli dəyişikliklərinə baxmayaraq, "cahangirlik ehtirası" da davam edirdi. Amma fərqlilik ondan ibarət idi onların savaşı Allah üçün, din üçün idi. İslamdan sonra yazılan bir çox türk dastanlarında göründüyü kimi hökmdarın islamı yaymaq məqsədilə etdiyi müharibələr türk xalqının qəhrəmanlığının kult səviyyəsində təqdimini də nümayiş etdirirdi. Bütün dövrlərdə Türkiyə dövlətinin tarixi və mövcud siyasi vəziyyəti isə onu deməyə əsas verir ki, müharibə mövzulu hekayələrdə türk millətinin ruhuna, türkçülük ideyasına məxsus şəkildə təqdim edilmişdir. Belə ki istər o zaman, istər də indi hər hansı müharibə reallığını təsvir etməkdən əvvəl Türkiyə yazıçılarını düşündürən yalnız bir məqam var: o da obrazın daxili dünyası və göstərdiyi qəhrəmanlığın kult, etnopsixoloji düşüncə səviyyəsində təqdimini reallaşdırmaqdır. Ümumiyyətlə, müharibə mövzusunun bədii mətndə ifadəsi məsələsi dünya ədəbiyyatşünaslığının da hər zaman diqqət mərkəzində olmuşdur. Məsələn, İ.Çekaşkina bu problemi təhlil edərək yazır: "Əgər müharibə illərində ədəbiyyatın əsas vəzifəsi xalq qüvvələrini düşmənlə mübarizəyə səsləmək idisə, müharibədən sonrakı illərdə əsgərlərin göstərdiyi hünərin tərənnüm edilməsi idi" (Чекашкина, 2004).

Türkiyə ədəbi prosesində müharibə mövzulu hekayələrə diqqəti yönəldək. Diqqətinizə çatdıraq ki, Türkiyə dövlətinin tarixi və mövcud siyasi durumu, türk xalqının ideoloji və dövlətçilik prinsipləri, türk insanını formalaşdıran milli-mənəvi özünüdərk hissi, qəhrəmanlığın kultoroloji aspektdən təqdimi keçmiş və müasir dövrdə yazılan hekayələrdə fərqli rakurslardan işlənmişdir və bu fərqlilik bizim araşdırmamızın əsas mahiyyətini müzakirəyə çıxartmağa imkan yaradır.

## TƏDQİQAT METODU

Türkiyədə müharibə ədəbiyyatı adlı mövzunu müzakirə etdikdə iki yanaşma ortaya çıxır. Bir qrup tədqiqatçılar belə bir ədəbiyyatın Türklərdə mövcud olmadığını iddia etsə də, digər qrup tədqiqatçıların isə Türklərin əksinə zəngin bir müharibə ədəbiyyatına sahib olduğunu deyir. "Kahraman Türk askerleri Kafkas hudutlarında, Sina ve İrak çöllerinde,Çanakkalede nihayetsiz bir iman ve heyecanla çarpışırken, onların kahramanlıklarını anlatan şiirler yazılmamıştır. Bu acıları işleyen bir bestekar veya onları tasvir eden bir ressam çıkmamıştır. Bunun tek sebebi aydın zümredeki ilgisizlikte aranmalıdır" (Duman, 2009) . Bu mübahisə mövzusuna Peyami Safa, Süleyman Nazif, Fuad Köprülü, Harun Duman, Ahmet Koçak, Faruk Kadri Timurtaş və başqaları öz fikirlərini araşdırma və yaxud məqalə şəklində təqdim etmişlər. Məsələn, Timurtaşın fikrincə türklərdə qəhrəmanlıq ruhu dastan çağından davam edən "cihan hakimiyeti"nə bağlıdır. Bu ruh öz mənbəyini Dədə Qorqud boylarından, Divani Lüğəti-Türkdən, Divan ədəbiyyatından almışdır.

Türkçülük ideologiyasına söykənən "Güclü dövlət" qurucusu olan türk xarakteri, qalibiyyətlərlə zəngin şanlı türk ordusunun döyüşkən ruhunu daşıyan müasir insan tipi son dövrdə yazılmış hekayələrin də əsas qəhrəmanına çevrilmişdir. Müharibə ədəbiyyatının tədqiqatçısı olan Harun Duman "Müharibə ədəbiyyatı necə olmalıdır?" sualını belə cavablandırır: "Xüsusilə estetik məqsəd güdülərək qələmə alınan ədəbi əsərlər arasında mövzusunu müharibədən alanlar əsl müharibə ədəbiyyatını yaradır" (Duman, 2009). Onun bu fikri, həqiqətən də, müasir dövrdə yazılmış müharibə mövzulu hekayələr üçün də keçərlidir. Ona görə ki, müasir dövrdə yazılmış müharibə hekayələrində real müharibə səhnələrindən uzaq, daha çox obrazın mənəvi dünyasını işıqlandırmağa maraqlı olan süjet xətləri diqqət mərkəzindədir. Belə hekayələrdə türk qəhrəmanlığının təqdimi və təsviri yüksək səviyyədədir. Xüsusilə qəhrəmanlığın kult səviyyəsində təqdimi hekayənin poetik ruhunda və estetik cəzbediciliyində hiss olunur. Harun Duman bunları nəzərə alaraq müharibə ədəbiyyatına olan baxışları iki istiqamətə bölür: "Bir qism yazıçılarımız belə bir ədəbiyyatın türklərdə mövcud olmadığı düşüncəsindədir. Digərləri isə bu düşüncənin tam əksinə olaraq, türklərin çox zəngin bir müharibə ədəbiyyatına sahib olduğu fikrindədirlər" (Duman, 2009).

Yazılma tarixindən fərqli olmayaraq müharibə mövzusunda yazılmış, demək olar ki, bütün Türkiyə hekayələrində qəhrəmanlığın, milli kimliyin, xarakterin yüksək səviyyədə təqdiminə rast gəlirik.

Onu qeyd edək ki, Türkiyə ədəbiyyatında müharibə mövzusuna müraciət və onun hekayələrdə təcəssümü Balkan müharibəsindən başlamış Birinci Dünya müharibəsi və Qurtuluş müharibəsi zamanlarına qədər və müharibədən sonrakı hadisələrin təsviri ilə reallaşmışdır. Türk tarixi faktlarına nəzər saldıqda görürük ki, Türkiyədə Türk-Yunan müharibəsi (1897) (digər adı ilə "30 gün müharibəsi"), Balkan müharibəsi (1912-13), Çanaqqala müharibəsi (1915-1916), Qurtuluş müharibəsi (1919-1922) kimi yaddaqalan tarixi əhəmiyyətli müharibələr olmuşdur. Və bu müharibələrin zəngin məzmun əhatəliliyi o dövr haqqında yazılan bədii mətnlərdə geniş şəkildə təsvir edilir. Türkiyə ədəbiyyatında müharibə mövzusunun işıqlandırılması isə Balkan müharibəsindən sonra daha aktuallaşmışdır. O dövrün ən böyük yazıçısı Ömər Seyfəddin hekayədə müharibə mövzusunun başlanğıcını qoymaqla hekayə kimi kiçik janrda müharibə reallıqlarını tam və dolğun şəkildə təsvirə cəlb etməyin mümkünlüyünü sübut etmişdir. "Müasir Türkiyə hekayəsinin qabaqcıl imzalarından olan Ömər Seyfəddin bir əsgər və yazıçı olmaqdan başqa, dövrün ziyalı insanlarından biridir. Dolayısı ilə hekayələrini qələmə alarkən əsgərlik xatirələri ilə bərabər, bir ziyalı olaraq Osmanlı dövlətinin qarşı-qarşıya qaldığı böyük problemlərdən də çıxış yolları göstərməyə çalışmış, bunu müxtəlif məsələlərlə bağlı yazdığı məqalə, köşə yazısı və hekayələrində dilə gətirmişdir" (Koçak, 2015). Məsələn, onun "Bomba" adlı hekayəsində Boris ailəsi ilə birlikdə Makedon və Bulqar koministlərinin zülm və şiddətinə məruz qalmış, "Primo türk Çocuğu" hekayəsində isə əsgərlik xatirələrini qələmə almaqla müharibə dəhşətlərini təsvir etməyi bacarmışdır. Ömər Seyfəddinin "Mehdi", "Primo Türk çocuğu", "Tuhaf bir Zulüm" adlı hekayəsi də müharibə mövzusundadır. I Dünya Müharibəsinə həsr olunmuş hekayələrdən biri də "Kaç yerindən" başlıqlı hekayədir. Bu hekayədə Qafqaz cəbhəsində, Bağdatda, Suriyada, Makedoniyada vuruşmuş, qırx doqquz yerindən yaralanmış bir qəhrəmanın hekayəsi haqqındadır. Yazıçının hərbdən sonra yazdığı hekayələrdə isə həm döyüşkən, həm də ac, susuz qalan əsgərlərin qəhrəmanlığından danışmışdır. "Niçin Zəngin olmamış" adlı hekayəsində müharibə sonrasında xalqın yoxsulluq halı, aclıq və səfalət vəziyyəti hekayələrinin ana mövzusudur. "Sokaklar daralmış, insanlar küçülmüş, kadınlar sıskalaşmış. Çehreler solgun. Herkeste üst baş perişan. İnanılmaz bir zaruret bu halkı eziyor. Mahalllelerde bir çok evler aç" (Seyfəddin, 2011). Müharibədən sonrası yazılan hekayələrin çoxunda həm də sosial problemlər öz əksini tapmışdır. Bu istiqamətdə yazılan hekayələrdən biri də "Zeytin Ekmek" adlı hekayəsidir. I Dünya müharibəsi illərində ac və səfil həyatı keçirmiş qadınların heyatından bəhs edən hekayələrdən biri də bu hekayədir. Hekayədə kasıb Naciyə və Sabirə müharibə dövründə bir-birlərini itirirlər. Müharibə sonrası görüşəndə isə biri imkanlı, biri elə kasib vəziyyətdə qarşılaşırlar. Varlı rəfiqəsi onun həyatını dəyişərək daha da uçuruma aparır. II Dünya müharibəsi ilə bağlı silsilə olaraq əsərlər yazan Kəmal Tahir "Dutlar yetişmədi", "Marangoz Ahmet Çavuş" adlı hekayələr yazmışdır. "Dutlar yetişmedi" adlı hekayədə xüsusilə II Dünya müharibəsi zamanı sosial problemlər diqqət mərkəzinə gətirilir. "Mahkumlardan Sazlı Mustafanın karısı Güley, bu durum üzerine çocukları Meryem ve Siloya yedirecek ekmek bulamayınca ümidini dutların yetişmesine bağlar" (Tahir, 2010). Yaqub Qədri hekayələrinin əsas məzmunu Qurtuluş müharibəsi dövrünə təsadüf edir. "Milli savaş hekayələri" adlı kitabı Milli mücadilə dövrünü əks etdirir. "Yakup Kadrinin bu hikayelerinde daha çok işğal altında bulunan yerlerin panoraması çizilmiş; hadiseler çok canlı ve realist çizgilerle gözler önüne serilmiştir. Ayrıca Yunan vahşeti, Milli Mücadele ve cephe havadisleri öyküleştirilmiştir".

(https://dergipark.org.tr/en/download/article-file/143160).

Yunan ordusunun geri çəkilməsini, türk ordusunun azad etdiyi ərazilərdə qəhrəmanlığı, canlı təsvirlər "Milli savaş Hikayeleri"ndə Anadolu insanının panoramasını yarada bilmişdir. "İssız Köy ve Dilsiz Kız", "Hüseyin Çavuş ve Köyünü Kaybeden Kadın", "Küçük Neron" və. s hekayələr bu cür hekayələrdir. "Milli savaş hikayeleri" Milli Mücadilə ilə bağlı hekayələrdir. Bu hekayələrdə yunan vəhşilikləri öz əksini tapmışdır.

Türk milli kimliyinin və ideologiyasının başlanğıc və formalaşma dövrü isə əsasən "Milli mücadilə" dövrünə (1919-1923) Qurtuluş müharibəsinin (1919-1922) gerçəkləşdiyi dövrə təsadüf etmişdir. Milli Mücadilə dövrü belə xarakterzə olunur: "Milli mübarizə dövrü türk milliyətçiliyində vətənsevərlik təşviqatının ən məhsuldar aparıldığı dövrdür" (Polat, 2014). Faruq Qədri Timurtaş isə öz məqalələrində Türkiyə ədəbiyyatında müharibə mövzusu və Türkiyə xalqının vətənpərvəlik ruhunun,

qəhrəmanlığının ta qədim dövrlərə təsadüf etməsindən söz açmışdır: "Türklərdəki qəhrəmanlıq ruhu dastançılıq dövründən bəri davam edən "cahan hakimiyyəti" ideyasına əsaslanır" (Duman, 2009). Bütün tarixi faktlara rəğmən türklərdə müharibə ədəbiyyatı haqqında fikirlər çox geniş yayılmamış, özünə əsaslı özül yaratmamışdır. Hətta Türkiyədə müharibə ədəbiyyatının mövcud olmadığına dair fikirlər də səslənməkdədir. Amma bu fikrə tamamilə əks mövqedə dayanan və əsaslı yanaşmalarla bu fikri inkar edən tədqiqatçılar da az deyildir. Türkiyə ədəbiyyatında müharibə mövzusunun zəifliyinin səbəblərini bəzi məqamlarda dövlətin siyasi və aparıcı qüvvəsinin laqeydsizliyinə bağlayanlar da çoxdur. "Xalqla ziyalılar arasında əsrlərdir davam edən ayrılıq uzandığı, ziyalının xalqın dilini, zövqünü, əxlaqi keyfiyyətlərini bilmədiyi müddətcə müharibə ədəbiyyatı formalaşa bilməz" (Duman, 2009) ifadəsi də səslənən fikirlərdən biridir. Türkiyədə müharibə ədəbiyyatı yaradan hekayə ustalarının fəaliyyəti həm də bu şəkildə təhlil edilir: "Bu şəxslərin müharibə ədəbiyyatını – əvvəli və sonrasıyla birlikdə - müharibə dövrünün ədəbiyyatı kimi deyil, müharibə ocaqları söndükdən xeyli sonra yüksək sənət nümunəsi yaratmaq istəyi ilə qələmə alınmış əsərlərdən ibarət bir ədəbiyyat kimi qəbul etdikləri hiss edilməkdədir. (Ulucutsoy, 2018). Son zamanlarda Türkiyə hekayə ustalarının yaratdıqları bədii mətnlərdə isə müharibə reallığını əks etdirməkdən daha çox, estetik tələblərə cavab verməsi, yazıçı sənətkarlığı ilə fərqlənir. Bu hekayələrdə yazıçılar müharibəyə müxtəlif rakurslardan yanaşmışlar. Milli varlığın ifadəsi olan bu nümunələr türk insanının gerçəkliyə münasibətini özündə ehtiva edir. Müasir dövrün yazıçılarından olan Əhməd Bükenin "Cazibə stansiyası" adlı kitabındakı hekayələrdə döyüş səhnələrinin təsvirindən, döyüşün gərginliyindən daha çox milliliyin, türkçülüyün fonunda türk əsgərinin qəhrəmanlığı, mübarizliyi, özünəinamı və əqidəsi əks etdirilir. Çağırış, üsyan və etiraz hissi təsvir olunur. Bu kitab həm də "ictimai, siyasi hadisələrin yaşatdığı fərdi həyat dramlarını əks etdirir" (Tosun, 2015) şəklində xarakterzə olunur. Əhməd Bükenin bu kitabındakı "Qutu" hekayəsində isə qəhrəman üçün Vətən qarşısında borc, anaya, torpağa olan sevgidir, babasından qalan bir ovuc torpağa, onun daşına, suyuna, olan sevgi və hörmətdir. "Arxamızda məzarlıqdır: ata yurdudur. Qarşımızda kəndimizdir: anam, qardaşlarım, qohum-qonşu..." (Büke, 2017) – deyən qəhrəmanın atasının öldürülməsi səhnəsində yaşadığı ağrı-acıya, ədalətsizliyə, nifrətə qarşılıq olaraq həm də, Vətən, torpaq, məzarlıq motivlərinin poetikliyi, milliliyin təbliği, üsyan və çağırış səslənməkdədir. Budur millət, tarix içində yoğrulan türk insanının xarakterini formalaşdıran əsas amillər. Bu müəllifin digər hekayəsi olan "Hər kəs ana quzusu"nda "Ölmək yoxdur daha. Bax Pir Həsən məndən soruşmuşdu: əsgərmi böyükdür, Allahmı?" (Büke, 2017) yazaraq adın və bu ada layiq olaraq missiyanı çiyinlərində daşıyan bir əsgərin Allah səviyyəsində müqayisə edilməsi, "Bayraq enməz, dövlət bitməz" hekayəsində isə "Dövlətimiz hər yaranı sarımaq gücünə sahibdir. Məni də bu məqsədlə sizin yanınıza göndərdi. Böyük dövlətlərin böyük vəzifələri, böyük məqsədləri var. Ölüm belə bizi sizdən ayıra bilməzdi. Ayıra bilmədi də. Baxın mən buradayam və hər zaman da yanınızda olacağam" (Büke, 2017) – deyən şüarlı, çağırışlı nitqində türk əsgərinin ruhuna, canına hopdurulan vətənə olan sevgi və özünəinamı təsvir olunan reallıqda özünü doğrultmuşdur. Məhz bu təsvirlərdə türk əsgərinin simasında xalqın genetik yaddaşı, milli özünəməxsusluğu da öz təsdiqini tapa bilmişdir.

Akif Kayanın "İslanmış kibritlər" kitabındakı "Qara", "Bir qış nağılı", "Əflatun" adlı hekayələrdə müharibəni görməyən, amma onu xatirələrində, ağrı-acısında, şüuraltı yaddaşında yaşadan qəhrəmanların həyat hekayəsini görmək mümkündür. Hekayələrdə yalnız obrazlar və onların xatirələri var. Bir də "bu hekayələrin mərkəzində müharibənin gətirdiyi ağrı, yıxım, zülüm vardır" (Tosun, 2015). Hekayədə xarakter cizgilərlə hadisələrin paralelliyi yox dərəcəsindədir. Yalnız "Qum" hekayəsini çıxmaq şərtilə. "Əlimdə bir ovuc qum. Bərk-bərk tuturam. Qum saatı... Çuvalın dibində də qum... Bir ovuc... Anam, atam, bacım... Axıb gedərkən ovuclarımdan atam, anam, bacım... Bir ovuc qumu neçə il tuta bilərsiniz ki, əlinizdə?" (Kaya, 2012) – deyən qəhrəmanın bu sözlərdə bütün yaşadıqları, itkiləri, əzizlərindən xatirə qalan əlindəki bir ovuc torpaq öz bədii-poetik xüsusiyyəti ilə simvolik məna daşıyır. Atasından yadigar qalan qum saatı, müharibədən sonra isə əzizlərindən xatirə saxladığı bir əşya kimi öz məna yükü və fəlsəfəsi ilə bədiiləşir. "Qum hekayəsində ailəsini müharibədə itirən uşağın gözündən müharibənin qəddarlığı gündəmə gətirilir" (Tosun, 2015). Ümumiyyətlə, hekayədə torpaq türkü yaşadan, əzəli-əbədi dəyər kimi öz ifadəsini tapmışdır. Torpaq hər bir türk vətəndaşının səcdə etdiyi müqəddəslikdir. Onsuz o, cansız, əqidəsiz, gücsüz bir varlıqdır. Budur, yazıçı təxəyyülünün gücü ilə milli-tarixi keçmişə, millət olaraq onları var edən dəyərlərə qayıdış baş verir.

Hekayələrində müharibəni əks etdirən yazıçılardan biri Camal Şakardır. Onun əsərlərində müharibəyə baxış fərqli və maraqlıdır. "Yazıçının ilk hekayələrindən bəri müharibə mövzusunu sıx bir şəkildə işlətdiyi müşahidə edilir. Qadın, kişi və uşaq gözü ilə yazılan hekayə öz hissələri ilə müharibənin səbəb olduğu psixoloji və ekoloji dağıntıları göz önünə gətirir" (Kayaoğlu, 2018). Camal Şakarın "Mürəkkəb" kitabındakı "Keçidlər" adlı hekayəsində də hadisələr müharibəni xatirələrdə deyil, canlı olaraq yaşayan məktəbli bir qızın sözləri ilə təsviri edilir: "Göz yaşları müəllimin köynəyinə tökülmüşdü. Yeridikcə, silkələndikcə müəllimin köynəyini isladan göz yaşları yanağını da bulaşdırırdı. Hər şey qarmaqarışıq idi. Qarmaqarışıq olurdu hər şey" (Şakar, 2017). Bu təsvirlə müharibənin canlı görüntüsünü insanlara çatdırmaq istəyən italyan jurnalistin yaşadıqları çox təsirlidir: "Evlərdən çıxarılan cəsədlər küçəyə toplanılırdı. Tanış görüntülər idi... Operator yenə də obyektivi ilə nələrisə gizlətmək istəyirmiş kimi görünürdü. Şərhsiz idi" (Şakar, 2017). Bu təsvirlərin fonunda hər iki obrazın psixoloji sarsıntısı, emosiyaları, iç dünyalarındakı təlatümlər daha təsirli şəkildə işlənmişdir: "Kaş ki bu, son olaydı, ey əziz oxucu..." (Şakar, 2017). yazıçının müharibəyə bu etiraz səsi isə sonda bu cür səslənir və ədalət hissinin bərpa edilməsinə çağırış kimi diqqət çəkir. Hekayədə, az da olsa, müharibənin real təsviri görünsə də, obrazların yaşadığı hadisələrin təsiri ilə yaranan millətçi və vətənpərvər xarakter tipi yaradılmamışdır. Bu isə təbii haldır. Əgər yaradılan hər bir əsər yazıçının təxəyyülünə və istedadına, hadisəni necə çatdırmaq istəyinə bağlıdırsa, bu halda mübahisə etməyə dəyməz.

Apardığımız araşdırma və gəldiyimiz nəticə onu deməyə əsas verir ki, Türkiyə ədəbiyyatında müharibə mövzulu hekayələr son dövrlərdən bu günə kimi fərqli bir tendensiya üzrə inkişaf yolu keçmişdir. Belə ki Ömər Seyfəddin yaradıcılığı ilə ədəbiyyata gətirilən müharibə mövzulu ("Bomba", "Primo Türk çoçuğu", "Nəqarat" və. s.) hekayələrdə rast gəldiyimiz real döyüş səhnələri, döyüşlərdəki gərginlik, müharibənin baş verdiyi məkan və zaman, canlı müharibə təsvirləri son dövrdə yazılmış mətnlərə ötürülməmişdir. Bu model son zamanlarda Türkiyə hekayələrində özünü doğrultmur. Səbəb isə, çox güman ki, son dövrlərdə Türkiyə dövlətində müharibə şəraitinin olmamasıdır. Bu səbəbdən də bədii mətnlərdə, xüsusilə hekayələrdə son zamanlar daha çox insan psixologiyasına, onun araşdırılmasına, insanın iç dünyasının işıqlandırılmasına diqqət yetirilir. Son dövrlərdə müharibə mövzulu hekayələrdə real müharibə təsvirləri olmasa da, müharibə qəhrəmanlarının daxili dünyasının təsvirinə, millətçilik cizgilərinə daha çox təsadüf edilir. Məsələn, Yaqub Qədri Qaraosmanoğlu yaradıcılığında əsası qoyulan tendensiya bu gün də davam etdirilir. Türklərin etnik, milli, tarixi köklərə bağlı olan güclü dəyərlər sisteminə malik olması, "millət", "vətən", "hürriyyət" anlayışlarına çağırışla insanların yaddaş və altşüurunda "güclü dövlət", "döyüşkən xalq" obrazının yaradılması bu tendensiyanın əsas nəticələridir. Onun "Milli savaş hekayələri" adlı kitabında Türkiyə tarixində önəmli dövr olan "milli mücadilə" dövründən bəhs edən, dövrün çətinlikləri, müharibənin ağrı-acısını yaşayan yoxsul təbəqənin başına gələnlər öz əksini tapmışdır. Yazıçı bir çox hekayələrində türk milli xarakterinin portretini yarada bilmişdir. Məsələn, "Dəhşətli bir xəyanət" hekayəsində türk milli xarakterindən məhrum olmuş obraz tənqid atəşinə tutulur. Hekayədəki obraz türk milli dəyərlərindən uzaqlaşmış, mənəvi tənəzzülə uğramışdır. "Türk bir kişi ilə yunan bir qadın arasındakı münasibətdə yunan qadın kişinin öz dəyərlərindən uzaqlaşmasına, türk xarakterinin öz millətinə yaraşmayacaq hərəkət etməsinə yol açar. Nuri Əfəndi Despino adlı qadın üçün bütün maaşını xərcləyir. Anasına hər ay pul göndərdiyi halda artıq ondan pul ala bilmək üçün yollar tapmağa çalışır" (Polat, 2018). Yazıçı hekayədə obrazın xarakterinin bu istiqamətdə dəyişməsini milli kimliyə xəyanət kimi dəyərləndirir və bu xəyanəti dəhşətli hadisə tək təsvir edir. Belə obrazlar yazıçının yaradıcılığında azlıq təşkil etsə də, milli kimlik, milli xarakter keyfiyyətlərinin dəyərləndirilməsi və ötürülməsi baxımından böyük əhəmiyyətə malikdir. Yaqub Qədri yaradıcılığı ilə ədəbiyyata gətirilən milli ideologiyaya xidmət edən millətçi, vətənpərvər, iradəli, türkçü, zəfər və inamla addımlayan xarakterlərin təsviri isə son dövr hekayələrinə uğurlu bir şəkildə ötürülmüşdür. "Müharibəni təsvir edən hekayələrində Yaqub Qədri kütlənin dəyərlərini, haqlarını, istəklərini insanı ucaldaraq müdafiə etmişdir" (İleri, 1975).

Türkiyə ədəbiyyatında vətənpərvərlik hisslərini işıqlandıran hekayələrdən biri də Camal Şakarın "Öncə Vətən" hekayəsidir. Bu hekayədə Türkiyədə baş vermiş "İnegöl" adlı siyasi (terror) hadisə işıqlandırılmışdır. "Polis avtobusundaydı... Çiyinlərində ağır yük.. Ürəyi... sıxılırdı, dözə bilmirdi: "Qardaş", – dedi: – mən hər şeyi vətənimiz və bayrağımız üçün elədim!" – 12 noyabr, 2010" (Şakar, 2017). Hekayədə yazıçı hadisə ilə bağlı bir neçə xırda detaldan başqa bu münaqişənin heç bir siyasi tərəfini əks etdirmir. Onun əsas məqsədi bu hadisələrdə "Öncə Vətən" deyib bütün sevdiklərindən

uzaq düşən, amalı, borcu naminə vətən uğrunda mübarizə aparan türk gəncini göstərməkdir. "Özümü Vətənimə və bayrağıma həsr etdim. Sənlə ola bilmərəm. Çox hərarətli günlər yaşayırıq. Vətənimin və bayrağımın mənə ən çox ehtiyac duyduğu bu günlərdə qəlbim hər şeyə qarşı bağlıdır" (Şakar, 2017) – deyərək sevgilisinə mesaj yazan bu gənc Vətəninin müdafiəsi üçün canından belə keçməyə hazırdır. Yazıçı Vətənə bağlı, millətinə ehtiram, bayrağına hörmət edən bir türk gəncinin vətəndaşlıq mövqeyini nümayiş etdirməklə əzəldən türk millətinə və ideologiyasına xas olan milli-mənəvi ideyaları göstərə bilmişdir. Bu aspektdən yazılan hekayələr sırasında məhz "Öncə Vətən" hekayəsinin adının çəkilməsi təsadüfi deyildir. Yazıçı hadisələr boyunca psixoloji sarsıntılar keçirən, narazılığını və etirazını ifadə edən qəhrəmanın "Başı yüngülcə dumanlanaraq, "əşşi, mənmi qurtaracağam bu məmləkəti" (Şakar, 2017), – desə də, "Bir bizmi girəcəyik bu yükün altına, biz – bir neçə gənc?" (Şakar, 2017) kimi inamsızlıq hisslərini və bu hisslərə qarşılıq olaraq qalib gələn Vətən sevgisini nümayiş etdirməklə, onun "mən, sadəcə, Vətən üçün, Vətənimiz.... bayraq, bayrağımız uğrunda... mən hər şeyi arxada qoydum, öncə Vətən" (Şakar, 2017) – deyərək paralel şəkildə iki dəyişkən xarakterini göstərən, içindəki daxili səsləri və özüylə mübarizə aparan bir obrazın çarəsizliyini təsvir edə bilmişdir. "Müharibə anlayışı cəmiyyətlərə və fərdlərə oxşar şəkillərdə təsir göstərməkdə və fərdlərin həm cəmiyyətlərə, həm də özlərinə yadlaşmasına səbəb olmaqdadır. Bir yandan müharibənin zalımlığı səbəbindən insanların məruz qaldığı çarəsizlik hissi, digər tərəfdən isə müharibənin lazımsızlığı həqiqəti ilə üzləşmələri onların fərqli hisslər yaşamasına səbəb olmuşdur" (Akdoğan, 2013) kimi fikir məhz bu obrazın daxili aləmini analiz etməyə yardımçı olur. Obrazları yaşadıqları hadisələrin içində düşdükləri psixoloji hallarla birlikdə təsvir etmək Camal Şakar yaradıcılığının əsas xüsusiyyətidir. Özünün də qeyd etdiyi kimi, "Doğrusu, mən yaşananların insan üzərindəki psixoloji təsirini, bir də psixoloji təsirlərdən başlayaraq, geri dönərək yaşanan hadisələr haqqında danışmağı daha düzgün hesab edirəm" (Öz, 2011). Hekayədə reallığı əks etdirən bir çox hadisələr həm Camal Şakarın siyasi baxışını, həm də bu hadisələrə yanaşmasını aydın ifadə edir. Onun nəzərində türk gənci sarsılmaz və iradəlidir. Onun üçün Vətən hər şeydən və hər kəsdən öndədir. Eyni motiv Nədim Gürsəlin "Buğda tarlasında ölüm" hekayəsində də təkrarlanır. Yazıçı hekayədə Türkiyə tarixi üçün əhəmiyyətli olan 12 sentyabr 1980-ci il (Hərbi çevriliş) hadisələrindən danışır. Türkiyə tarixi və milləti üçün böyük və unudulmaz olan bu siyasi hadisə hekayədə tarixi detalların köməkliyi ilə daha çox obrazların simasında, həyatında öz əksini tapır. Hekayədə təsvir və təhkiyə çox güclüdür. Türkiyə xalqının xarakterini ustalıqla qələmə alan Nədim Gürsəl qələmi müharibədə qazanılan millətçiliyi, şəxsiyyəti, qanla tarixi yaddaşa hopan əzmkarlığı, qəhrəmanlığı və dönməzliyi təbii təsvirlərlə əks etdirməyi bacarmışdır. Görünür, o, hekayənin həm qəhrəmanı, həm də yazıçısı kimi hadisələrə içdən və ağrılı yanaşa bildiyi üçün əsər uğurlu alınmışdır. Hekayədə müəllif dostu Şəhmuzla birlikdə baş verən siyasi hadisələrə birbaşa müdaxilə edə bilmədiyi üçün qələminə arxalanıb bu hadisələri işıqlandırmaq və müştərək roman yazmaq fikrinə düşür. Amma 1980-ci ildə baş verən hərbi çevriliş bu istəyi yarımçıq qoyur. "Nə var ki, bu iş birliyi tam həyata keçmək üzrə olduğu zaman 12 sentyabr çevrilişi olmuş, dumanlı havada dolaşan qurda hazırlıqsız yaxalanmışdılar. Şəhmuzu çevrilişin baş verdiyi gecə tutmuşdular, onun da kitablarını topladıb haqqında həbs tələb edərək məhkəməyə vermişdilər" (Ləkəsiz, 2017). Bu hadisəyə qarşı yazıçıda bir etiraz hissi baş qaldırır, o, nifrət dolu ifadələrlə hekayədə öz subyektiv münasibətini işıqlandırmış olur.

## NƏTİCƏ

Göründüyü kimi, türk insanı sözündən dönməz və qəhrəmanlığında sarsılmazdır. Nə olur olsun, mübarizəni aparmağa çalışacaqdır – istər silahla, istərsə də qələmlə. Hekayələrdən də göründüyü kimi janrın həyatı özünəməxsus vasitələrlə geniş əks etdirmək imkanı çoxdur və hər iki dövr üçün əsas istiqamət türkçülüyün, qəhrəmanlığın təbliğ edilməsidir. Fərqli yazma üslubu, stuktur müxtəlifliyi olsa da belə, vətəni sevmək amalına bağlı olan amillər yenə də əvvəlki və indiki müharibə mövzulu hekayələri bir nöqtədə birləşdirə bilir deyə bilirik.

### ƏDƏBİYYAT SİYAHISI

1. Чекашкина, Н. И. (2004). *Художественное осмысление темы Великой Отечественной войны в современной мордовской прозе: 80-90-е гг.* XX века. Автореферат диссертации на соискание ученой степени кандидата филологических наук, 24 .
2. Duman, H. (2009). Yeni Türk Edebiyatı`nın kaynakları: Savaş ve Edebiyat (1828-1911). Turkish Studies - İnternational Periodical for the Languages, Literature and History of Turkish or Turkic, 4 (1) - I Winter, 29-77.

3. Koçak, A. (2015). Savaşın Gölgesinde Yazılan Hikayeler: Ömer Seyfettin`in Hikayelerinde Savaşın Yansımaları, 13 (18), 637-656.
4. Seyfəddin Ö. (2011). Bütün hekayələri, 926.
5. Tahir K. (2010). Dutlar yetişmedi, 4.
6. https://dergipark.org.tr/en/download/article-file/143160 .
7. Polat, M.E. (2018). Milli Seferberlik Hallerinde Dedikodunun İşlevsel Gücünden Yararlanan Edebiyat: Kurtuluş Savaşı Dönemi Öyküleri. İstanbul: Akademik Bakış Uluslararası Hakemli Sosyal Bilimler Dergisi, (65), 407-426.
8. Ulucutsoy, H. (2018). Türk basınında savaş edebiyyatı tartışmaları 1913-1941. Türkish Studies İnternational Periodical for the Languages, Literature and History of Turkish or Turkic, 13/28, 1023-1040.
9. Büke, A. (2017). Cazibe İstasyonu, 87.
10. Tosun, N. (2015). Günümüz Öyküsü, 382
11. Kaya, A. (2012). İslak Kibritler, 136.
12. Kayaoğlu, İ. (2018). Birey ve Toplum İlişkisi Ekseninde Cemal Şakar`ın Hikayeleri ve Hikayeciliği. *Fırat Üniversitesi Sosyal Bilimler Enstitüsü Türk Dili ve Edebiyatı Anabilim Dalı Yeni Türk Edebiyatı Bilim Dalında yapılan* yüksek Lisans Tezi, 220.
13. Şakar, C. (2017). Mürekkep, 102.
14. Polat, M.E. (2014). "Kurtuluş Savaşı Dönemi Öykülerinde "Dedikodu" nun İşlevi Ve "Öteki"nin Anlatısı". *Karadeniz Teknik Üniversitesi Sosyal Bilimler Enstitüsü Türk Dili Ve Edebiyatı Anabilim Dalı Türk Dili Ve Edebiyatı Proqramında Yüksek Lisans Tezi*, 134.
15. İleri, S. (1975). Türk Öykücülüğünün Genel Çizgileri. Türk Dili dergisi. Türk öykücülüğü özel sayısı, (286), 2-29.
16. Akdoğan, M. S. (2013). İngiliz ve Amerikan Savaş Romanında Yabancılaşma: Ernest Hemingway ve Graham Greene. *Ankara Üniversitesi Sosyal Bilimler Enstitüsü Batı Dilleri ve Edebiyatları İngiliz Dili ve Edebiyatı Anabilim Dalında yapılan yüksek lisans tezi,* 105.
17. Öz, A. (2011). Cemal Şakar`la Öykü Üzerine Söyleşi..... Hece Aylık Edebiyat Dergisi, (170), 8-105.
18. Lekesiz, Ö. (2017). Yeni Türk Edebiyatında Öykü 4: [5 cildde], 589.

# R.QARİNİN "SÜBHÜN VƏDİ" AVTOBİOQRAFİK ROMANINDA MÜƏLLİF OBRAZI

**GÜLŞƏN BAĞIROVA**
Azərbaycan Dillər Universiteti
Filologiya/ Xarici ölkələr ədəbiyyatı kafedrası
bagirova-79@list.ru
BAKI, AZƏRBAYCAN

**XÜLASƏ**

Məqalədə bioqrafik metod və müəllif konsepsiyası ilə bağlı elmi qənaətlər Roman Qarinin "Sübhün vədi" romanı kontekstində tədqiq olunur. Roman Qari müasir fransız ədəbiyyatının inkişafına böyük təsir göstərmiş, lakin layiq olduğu uğurları qazana bilməmişdir. Emil Ajar təxəllüsü ilə daha çox tanınan Roman Qarinin ədəbi irsi özünəməsusluğu ilə seçildiyindən nəinki Fransada, hətta bütün dünyada maraq doğurur. Yazıçının "Sübhün vədi" romanı şəxsi təcrübənin bədii təfsiri, avtofiksiyanın illüstrativ nümunəsi hesab oluna bilər. Əsərdə anası və özünün prototipini yaradan müəllif yəhudi olmağın çətinliyindən, ədəbiyyata gəlişindən, Fransa müqavimət hərəkatı zamanı yaşadıqlarından təfsilatı ilə bəhs edir. Romanda bioqrafik roman janrının əsas prinsipləri toplanır: müəllif və obrazın həyatı üst-üstə düşür və ya əksinə, reallıq və təxəyyülün sintezi zamanı bəzi ziddiyyətlər aşkar olunur. "Sübhün vədi" romanının təhlili ilə "müəllif obrazı" anlayışının təhkiyə nəzəriyyəsində təsbit olunması məqamı üzə çıxarılır. Nəticə olaraq "müəllif obrazı" konsepsiyasının müəllifin şəxsi həyat tarixçəsinin və mövqeyinin konkretləşməsinə xidmət etməsi qeyd olunur.

**AÇAR SÖZLƏR: Açar söz - müəllif, açar söz - avtobioqrafiya, açar söz - reallıq**

**SUMMARY**

In the article, scientific conclusions about the biographical method and author's concept are studied in the context of Romain Gary's novel "Promise at Dawn". Romain Gary had a great influence on the development of modern French literature, but he did not achieve the success that deserved. The literary heritage of Romain Gary, who is better known by the pseudonym Emil Ajar, is interested not only in France, but also all over the world, as it stands out for its selflessness. The writer's novel "Promise at Dawn" can be considered an artistic interpretation of personal experience, an illustrative example of autofiction. In the work, the author, who created the prototype of his mother and himself, talks in detail about the difficulties of being a Jew, his coming to literature, and his experiences during the French resistance movement. The main principles of the biographical novel genre are collected in the novel: the life of the author and the character coincide or, on the contrary, some contradictions are revealed during the synthesis of reality and imagination. Analyzing the novel "Promise at Dawn" reveals the point of establishing the concept of "author's image" in the theory of novel. As a result, it is noted that the concept of "author's image" serves to concretize the author's personal life history and position.

**KEY WORDS: Key word - author, key word - autobiography, key word – reality**

GIRIŞ

Mühüm ictimai-siyasi hadisələrin baş verməsi ilə xatırlanan XX əsr fransız ədəbiyyatı tarixində xüsusi əhəmiyyətə malik mərhələ kimi xatırlanır. XX əsrdə bütün Avropa fransız yazıçılarından, ekzistensialist filosoflardan, absurd teatr, yeni roman və kinoda yeni dalğa hərəkatından bəhs edirdi. Fransız nəsrinin çiçəkləndiyi bir dövrdə yazıb yaradan Roman Qarinin ədəbi üslubu isə müasir fransız ədəbiyyatının formalaşmasında mühüm mərhələ olmaqla yanaşı, Fransa müqavimət hərəkatının ədəbi tərzdə təqdimatının ən bariz nümunəsidir. "Sübhün vədi" romanının bioqrafik metod çərçivəsində araşdırılması və müəllif obrazının təhlili, bu baxımdan *aktuallıq* kəsb edir.

Roman Qarinin yaradıcılığı Qərb ədəbiyyatşünaslığında kifayət qədər tədqiqata cəlb olunsa da, milli ədəbiyyatşünaslığımızda yazıçının yaradıcılığının geniş həcmli araşdırmasının mövcud olmaması təqdim etdiyimiz tədqiqatın *elmi yeniliyinin* göstəricisidir. Məqalənin *məqsədi* - müəllif obrazı anlayışını izah edərək, Roman Qarinin "Sübhün vədi" romanındakı avtobioqrafik elementləri müəyyən etməkdən və elmi qənaətləri ümumiləşdirməkdən ibarətdir. Tədqiqatda qarşıya qoyulan *vəzifələr* bunlardır: 1) Bioqrafik metod anlayışının ümumi şəkildə müəyyənləşdirilməsi; 2) Bioqrafik elementlərin Roman Qarinin "Sübhün vədi" romanında inikasının araşdırılması; 3) Yazıçının şəxsi həyat tarixçəsi ilə yaratdığı obraz arasındakı paralellərin müəyyən olunması;

Tədqiqatın *praktiki əhəmiyyəti* əldə edilmiş nəticələrin "Dünya ədəbiyyatı tarixi", "Fransız ədəbiyyatı" fənlərinin tədrisində, bu qəbildən tədqiqat işlərinin yazılmasında, dərsliklərin hazırlanmasında istifadə edilə bilməsindədir.

Bədii ədəbiyyatda "müəllif obrazı" dedikdə yazıçının əsərdə iştirakının formalarından biri nəzərdə tutulur. Müəllifin əsərdə iştirakının formaları mövzu və janr kimi bədii xüsusiyyətlərdən asılı olmaqla yanaşı mətnin çərçivə komponentlərində (başlıq, epiqraf, ithaf, ön söz, son söz və s.) də özünü göstərə bilər. Tədqiqatçı alim Viktor Vinoqradov müəllif obrazını əsərin əsas və qiymətli nəsnəsi kimi izah edərək bildirirdi ki, öz obrazı vasitəsilə müəllif əsərinin məzmununa estetik münasibətini açıqlayır və "bədii əsərin bütün üslubi keyfiyyətləri məhz bu obrazda cəmləşir" (Виноградов, 1958)

M. Baxtin isə müəllif obrazını "verilmiş əsərin obrazlarından biri (etiraf etmək lazımdır ki, xüsusi növlü obraz)" (Бахтин, 1979) kimi başa düşürdü. Başqa sözlə, müəllifin kimliyi implisit və ya eksplisit şəkildə əsərlərində ifadə tapır. Yazıçının əsərə daxil etdiyi obrazlar, hadisələr və faktlar bir növ onun həyatının fraqmentləridir. Bu fraqmentlər bütövlükdə müəllifin həyat tarixçəsinin tablosunu formalaşdırır və obrazların fərqli həyat tarixçələrinin təsviri ilə yaradıcı şəxs dünyaya münasibətdə öz mövqeyini ortaya qoyur.

Avtobioqrafik janrda müəllif əsas obraz kimi çıxış etdiyindən onun şüurunda həyatın zahiri tərəfi dağılır, əsər onun tərcümeyi-halının faktlarına, daxili həyatına çevrilir. Bioqrafik romanın yenilənməsi, müasir formatda işlənməsi bilavasitə bioqrafik metodun yaradıcısı Şarl Ogüst de Sent Bövün adı ilə bağlıdır. O, gənclik illərində yazdığı məqalələrdə yaradıcı şəxsiyyətin həyatın tarixçəsinin qələmə alınması probleminə toxunmuşdur. Fransız yazar bioqrafik romanların geneologiyasını, yazıçının

kimliyini yazdığı ədəbi nümunələrə əsasən süjet və obrazlarda axtarırdı (Сент-Бев, 1970). O.N. Turışevaya görə, Sent-Böv "müəllifin qəlbinin dərinliklərində öz qəhrəmanları ilə eyniyyət təşkil etdiyini" bildirir və bu da bioqrafik janrda yazılmış əsərlərdə "yaradıcı şəxs və onun əsəri" uzlaşmasının təkzibedilməz fakt kimi nəzərdən keçirilməsinin vacibliyini ifadə edir (Турышева, 2012).

XX əsr fransız nəsrinin usta yazarlarından sayılan Roman Qari ekzistensializm, yeni roman və strukturalizmin "kölgəsində" yazıb yaratsa da müasirləri tərəfindən oxunmayıb, oxunsa belə başa düşülməyib. Buna baxmayaraq, onun fəlsəfi və estetik baxışları fransız ədəbiyyatında yeni meyillərin formalaşmasına təsir göstərmişdir. Yazıçının "Sqanarelle üçün. Roman və personaj axtarın" ("Pour Sganarelle. Recherche d'un roman et d'un personnage") tənqidi essesi müasir romanın orijinal konsepsiyasını yaratmaq cəhdi idi. Onun romanları reallığı əks etdirən "güzgü" funksiyasını yerinə yetirir – o, yaşadığı həyat reallığından tutmuş, sosial fəlakətlərə qədər şahid olduğu hadisələri təsvir etməyə cəhd göstərir. Müəllifin əsərdə iştirakı Roman Qarinin mətnlərinin vacib atributudur. Yazıçı romanları vasitəsilə öz reallığını ədəbi tərzdə ifadə etməyə cəhd edir.

R. Qarinin 1960-cı ildə yazdığı "Sübhün vədi" (La promesse de l'aube) retrospektiv romanında real hadisələr və personajlar yenidən şərh olunur. Bu, müəllifin xüsusi yazı tərzidir. Romanda bütün hadisələr və obrazlar gerçəkliyə əsaslanmasa da yazıçı bir tərəfdən, xəyali reallıq və ya arzu olunan mənzərəni yaratmaq üçün hadisələri bədii şəkildə yenidən şərh edir, digər tərəfdən, detalları gizlədərək keçmişə qayıdışa mane olur. Əsas ideyası anaya hörmət üzərində qurulan romanda Roman Qari güclü, fədakar və məğrur qadın obrazı yaradır. Lakin anasının onunla bağlı sonsuz arzuları yazıçını sözün əsl mənasında ümidsizliyə düçar edir. Qarinin bütün hərəkətləri anasının arzusunu - *"Sən qəhrəman, general olacaqsan, Qabriele D'Annunzio, Fransanın elçisi - bütün bu əclaflar hələ sənin kim olduğunu bilmir!"* (Gary, 1980) - həyata keçirməyə yönəlib, onun öz arzusu yoxdur: Yazıçının təxəyyül bacarığı, fantaziyaları ona anasından keçsə də o, bu romanında fantaziyalarını real hadisələr müstəvisində təsvir etməyə müvəffəq oldu.

"Sübhün vədi" romanını klassik avtobioqrafiya və ya avtobioqrafik fantastika ("avtofiction") kimi nəzərdən keçirmək olar. Romanda müəllif həyat tarixçəsi ilə bədii ədəbiyyat arasındakı sərhədləri bulandırmağa və qarışdırmağa çalışır. P. V. Paliyevski bioqrafik metodu təhlil edərkən haqlı olaraq bildirir ki, bu metodda "yazıçının tərcümeyi-halı və şəxsiyyəti onun yaradıcılığının əsas müəyyənləşdirici, həlledici məqamı olaraq nəzərdən keçirilir" (Палиевский). Öz ədəbi aləmini yaratmaqda tam sərbəstliyə malik olan müəllif real faktları təxəyyülünün fantaziyaları ilə qarışdıraraq, özünəməxsus obraz yaradır. Roman ananın oğluna qarşı hədsiz, tükəndirən və tələbkar sevgisindən bəhs edir. Ana sevimli oğlu üçün faciəvi sonluqdan başqa hər şeyi qabaqcadan görərək parlaq bir həyat ssenarisi hazırlamışdı. Lakin istəməyərək də olsa onun pataloji sevgisi Roman Qarini faciəli taleyə məhkum etdi. O, bütün həyatı boyu anasının sevgisini əvəz edə biləcək bir sevgi axtarsa da, heç vaxt arzuladığı kimi xoşbəxt ola bilmir. Yazıçı bunu "Sübhün vədi" romanında kəskin şəkildə ifadə edir: *"Sonralar hansısa qadın səni hər dəfə bağrına basanda başa düşürsən ki, bu sevgi elə deyil. Hara gedirsən get, tərk edilmiş it kimi ulayaraq daima ananın məzarına qayıdacaqsan"* (Gary, 1980).

R. Qarinin bu romanında M. Baxtinin təbirincə desək, oxucu müəllifin emosional vəziyyətini onun prizmasından dərk edir. Yəhudi kimliyi, Fransada mövcud olan antisemitizm ("Fransa fransızlar üçündür!") Qarini ən çox narahat edən və onun fransız olmaq meylini daha da gücləndirən nüanslar idi. O,1974-cü ildə "Gecə sakit keçəcək" (La nuit sera calme) kitabında mühacir olmaq istəmədiyini yazırdı. O dövrdə mühacir olmaq damğa demək idi. "Prev" jurnalının ona ünvanladığı "Yəhudi olmaq onun üçün nə deməkdir" sualına Roman Qari açıq şəkildə "Başqalarına sizi incitmək imkanı vermək" cavabını vermişdir (Анисимов). Vilna və Varşavada keçirdiyi ağır illər onda böyüdüyü mühitə qarşı hiddət oyatsa da, heç vaxt anasına xəyanət etməyən Roman Qari tarixi yenidən yazmaq üçün "Sübhün vədi" romanını qələmə aldı. Yazıçının əksər hallarda əsərdə yaratdığı alternativ reallıq reallığın bir növ əksidir. Yəhidilərə qarşı təqibi romanda xüsusi olaraq vurğulamayan yazıçı, orduda rütbə almasına maneə kimi yoxsulluq və mühacirəti göstərir. Həmçinin romandakı ana obrazı da reallıqla (Roman Qarinin anası ilə) o qədər də uyğun gəlmir. Nina Borisovskaya (əsl adı Mina) oğlunu lazım olan hər şeylə təmin etməyə çalışırdı və onların vəziyyəti Qarinin romanda təsvir etdiyi qədər çətin deyildi. Roman Qarinin yeganə missiyası hər zaman oğlunun parlaq gələcəyi barədə danışan anasına özünü uğurlu bir insan kimi sübut etmək idi. *"Mən demirəm ki, anaların körpələrini*

*sevməsinə mane olmaq lazımdır. Amma əminəm ki, başqasını sevsəydilər daha yaxşı olardı. Anamın məşuqu olsaydı, mən ömrümü hər bulağın başında susuzluqdan ölməklə keçirməzdim"* (Gary, 1980).

Romanda müəllif əsas avtobioqrafik problemlərdən olan yaradıcı şəxsiyyət, özünü axtarmaq problemini ortaya qoyur. Bu baxımdan, rəsm çəkərək, musiqi ifa edərək özünü tapmağa çalışır, lakin taleyini ədəbiyyatla bağlayır.

Əsərdə təhkiyə birinci şəxs tərəfindən, yazıçının özünün nöqteyi-nəzərindən təqdim olunur. Məhz bu rəvayət forması R.Qarinin ideyasını həyata keçirmək - yeni reallıq yaratmaq üçün ən əlverişli ədəbi üsuldur. Müəllif-təhkiyəçi obrazı romanda əsas yer tutur, Qari düşündüyü kimi, əsəri uzun monoloq tərzində qurur, öz həyatını xatırlayır və onu oxucu ilə bölüşür, bu da bizi V. Vinoqradovun bədii mətnin monoloqu ilə bağlı araşdırmasına qaytarır. Bütün mətni birləşdirən belə birləşdirici kateqoriya müəllifin obrazı kimi müəyyən edilir. Çünki tərcümeyi-hal kimi təqdim olunan romanda əsas şəxs yazıçının özüdür. V. Vinoqradov yazırdı ki, müəllifin siması "Bədii əsərdə həmişə sezilir və əsas məsələ onun əsərləri əsasında bu obrazın yenidən qurulması ilə bağlıdır" (Виноградов, 1980).

Müasir fransız yazıçısı Frederik Beqbeder "Fransız romanı" (Un roman français) adlı avtobioqrafik romanında qeyd edir ki, "Hər hansı bir həyat hekayəsinin təhkiyəçilərinin sayı qədər versiyaları var və hər bir təhkiyəçinin isə öz həqiqəti var" (Beigbeder, 2009). "Sübhün vədi" romanında Roman Qarinin həyat tarixçəsi anası və onun ətrafında cərəyan edir, müəllif anası ilə onu birləşdirən güclü hissləri, eləcə də anasının oğluna olan ambisiyalarını təsvir edir. Buna baxmayaraq, roman boyu müəllifin tez-tez ziddiyyətli və bəzən qeyri-müəyyən hisslər yaşadığını da sezmək mümkündür. Qari əsərdə anasına qarşı olan minnətdarlıq, küskünlük, hətta bəzən utanc kimi ambivalent duyğuları xiffət və retrospektivliklə təsvir edir.

Bioqrafiya janrının nəzəri problemlərini tədqiq edən Y.A. İvanovanın qeyd etdiyi kimi, bioqrafik roman janrında fakta əsaslanan tərcümeyi-haldan fərqli olaraq, "yaradılan, daha dəqiq yenidən yaradılan" (müəllifin həyat tarixçəsinin motivləri əsasında yazdığı əsəri) obrazın dolğunluğunun oxucuya çatdırılması real faktların detallarla qeyd olunmasından daha vacib meyar kimi qəul edilir (Иванова, 2012).

Tədqiqatçı Valentina İvaşeva isə "Epistolyar dialoq" kitabında yazır ki, "Əlbəttə, yazıçını dərk etmək üçün onun haqqında yazılmış materialları oxumaq lazımdır. Lakin əgər tənqidçi yazıçını tanımadan, başqasının mülahizələrinə əsasən bu materialları yazıbsa onda mütləq təhrifə yol verəcək" (Ивашева, 1983). Bu baxımdan, ədəbi bədii nümunədə intişar tapan bioqrafik elementlər vasitəsilə yazıçının həyatı haqqında əldə olunan məlumatın da mütləq mənada həqiqətə uyğun olub olmadığını müəyyənləşdirmək lazımdır.

V. İvaşevanın fikrindən çıxış edərək deyə bilərik ki, R. Qari məhz real həyat motivləri əsasında qələmə aldığı "Sübhün vədi" romanı vasitəsilə özü haqqında dolğun məlumat əldə etməyə imkan yaradır. Müsahibələrinin birində Roman Qarinin dediyi *"D'une manière générale, j'écris pour me débarrasser de moi-même". Non pour me retrouver. J'écris toujours contre moi."* (Interview de R. Gary, 1975) – "*Mən əsasən özümü tapmaq üçün yox, özümdən qurtulmaq üçün yazıram."(kursiv bizimdir - G.B.)* fikri "Sübhün vədi" əsərinin yazılma məqsədini təsdiqləyir.

**TƏDQIQAT METODU**

Tədqiqat zamanı bioqrafik metoddan, analitik təhlil metodundan istifadə edilmişdir. Həmçinin tədqiqat prosesində təhlil, təfsir kimi üsullardan, mütəxəssislərin araşdırmalarındakı elmi qənaət və mülahizələrdən istifadə olunmuşdur.

**NƏTICƏ**

Çoxşaxəli məfhum olan müəllif obrazı nəzəri perspektivlərdən asılı olaraq müxtəlif cür müəyyən edilir. Müəllif anlayışı ilə qarışdırılan müəllif obrazı ədəbi mühitin iştirakçılarının (müəllif-əsər-oxucu) qarşılıqlı təsirinin məhsulu kimi başa düşülməlidir. Bioqrafik metoda əsasən həyat tarixçəsindən çıxış edən müəllif reallıq və təxəyyülü çulğalaşdıraraq ədəbi nümunə yaradır və oxucu (və ya tədqiqatçı) müəllifin "simasını" əsərdə tapır. Hadisələrin yazıçı və anası ətrafında cərəyan etdiyi ədəbi eksperiment olan "Sübhün vədi" romanı müəllif obrazının bədii əsərdə intişar tapmasının bariz nümunəsi hesab oluna bilər.

**ƏDƏBIYYAT SIYAHISI**

1. Анисимов, М. (2007). Ромен Гари, хамелеон. URL: https://e-booka.com/bookread/42900-miriam-anisimov-romen-gari-hameleon, 16.
2. Бахтин, М. М. (1979). К методологии гуманитарных наук // Эстетика словесного творчества. М.: Искусство, С. 361-373.
3. Beigbeder, F. (2009). Un roman français, Grasset, 280s.
4. Виноградов, В. В. (1958). Наука о языке художественной литературы и её задачи. М., IV Международный съезд славистов. С. 24.
5. Виноградов, В.В. (1980). Избранные труды, О языке художественной прозы, И., Наука, 9.
6. Ивашева, В.В. (1983). Эпистолярные диалоги. М.: Советский писатель, 368 с.
7. Иванова, Е.А. (2012). Теоретические основы и актуальные проблемы жанра биог-рафии // Известия Саратовского университета. Филология. Журналистика, № 3(12), с.43-48.
8. Interview de R. Gary. (1975). Sud-Ouest Dimanche.
9. Палиевский, П. В. Биографический метод // Литературная энциклопедия
10. Сент-Бев, Ш.О. (1970). Литературные портреты: Критические очерки. М.: Худож. лит., 1970, 582 с.
11. Турышева, О.Н. (2012). Теория и методология зарубежного литературоведения. Учебное пособие, М.: Наука, 195 с.
12. Gary, R. (1980). La promesse de l'aube. Paris: Gallimard, 455.
13. Gary, R. (1991). La nuit sera calme. Gallimard. 264.

# CON QRİN YARADICILIĞINDA GƏNCLƏRİN İDENTİKLİK VƏ ÖZÜNÜDƏRK PROBLEMİ

**Fidan Abdullayeva**

Azərbaycan Dillər Universiteti
Filologiya, Xarici ölkələr ədəbiyyatı kafedrası
fidanabdullayeva1012@gmail.com
Bakı, Azərbaycan

**Xülasə**

İlk dəfə ABŞ ədəbiyyatında yaranan "young adult" janrı yeniyetmə gənclərin problemlərindən bəhs edir. Lakin bu janr artıq ABŞ ədəbiyyatının sərhədlərini aşmış, Avropanın bir çox ölkələrində geniş yayılmışdır. Bu ədəbiyyatın mərkəzində adətən ekzistensial böhran yaşayan və mövcud şəraitin təsiri altında dəyişən yeniyetmə gənclər dayanır. Yeniyetmə gəncin ailə və məktəb münasibətləri, dostluq və ilk məhəbbət mövzuları "young adult" ədəbiyyatının bədii xüsusiyyətlərindəndir. Gənclərin identiklik axtarışları, özünüdərk problemləri də bu sırada yer alır. Müasir amerikan yazıçısı Con Qrinin "Alyaskanın axtarışında" və "Kağız şəhərlər" romanları bu janrın bütün səciyyəvi xüsusiyyətlərinə cavab verir. Con Qrin romanlarında müasir gənclərin həyat hekayələrini canlandırır, onların identiklik axtarışlarından bəhs edir. Yazıçının gənc qəhrəmanları müasir gəncliyin diliylə danışır, onların nə istədiyini səsləndirir, fərd-cəmiyyət konfliktinin nədən qaynaqlandığını, fərdin daxili konfliktlərinə səbəb olan məsələləri qaldırır.

**Açar sözlər:** Con Qrin, yeniyetmə gənclər, identiklik və özünüdərk problemi

**Abstract**

The "young adult" genre, which appeared for the first time in American literature, speaks about the problems of teenagers. However, this genre has already crossed the borders of US literature and is widespread in many European countries. At the center of this literature are teenagers who usually experience an existential crisis and change under the influence of current conditions. The themes of family and school relationships, friendship and first love of a teenager are among the artistic features

of “young adult” literature. Young people’s search for identity and self-awareness problems are also included in this list. Modern American writer John Green’s novels “Looking for Alaska” and “Paper Towns” meet all the typical features of this genre. In his novels, John Green revives the life stories of modern youth and talks about their search for identity. The writer’s young heroes speak in the language of modern youth, talk about what they want, what causes the individual-society conflict, and raise the issues that cause the individual’s internal conflicts.

**Keywords:** John Green, young adults, the problem of identity and self-esteem

**Giriş**

Müasir ədəbiyyatda identiklik və özünüdərk probleminə müxtəlif yanaşmalar mövcuddur. Bu ilk növbədə insanın fərd kimi təkrarsızlığı, onun şəxsiyyət bütövlüyü və mənəvi mövcudluğu deməkdir. Digər tərəfdən fərdin identikliyi həmçinin sosial təcrübələrin özününküləşdirilməsiylə bağlıdır. Məhz bu vəziyyətdə insan özü haqqında təsəvvür formalaşdırır və ona uyğun davranır. İnsan iştirak etdiyi mürəkkəb sosial-mədəni proseslərin mahiyyətini başa düşməyə bilər, lakin o, bu prosesin mərkəzində dayanır və bu halda onun həyatı ziddiyyətli problemlərin həllinə çevrilir. Bu proses onu mənəvi-ruhani və eyni zamanda da sosial məsələlərdə seçim etməyə məcbur edir. Erix Fromma görə “Mən yaşadığım, maraq hiss etdiyim, dünya ilə nə dərəcədə bağlı olduğum və onunla davrandığım dərəcədə mənəm. Burada mənim özümlə bağlı fikirlərim başqalarının mənim haqqımda olan fikirləri ilə, mövcud mənliyimlə və öz şəxsiyyətimin mahiyyəti ilə üst-üstə düşür” (Фромм, 2006).

İdentiklik böhranı və ya dəyişən identifikasiya problemi bütün dünyada baş verən köklü dəyişikliklərlə bağlıdır. Məlumdur ki, insan öz davranışında aydın məqsədlərə söykənmirsə, o, özü haqqında əminlik hissini və şəxsiyyət bütövlüyünü itirir. Bəzən insanın özgüvəni onun əslində kim olduğu ilə üst-üstə düşmür. Bu isə identiklik böhranına gətirib çıxarır.

Son illər müasir gənclik və mənəvi-etik problemlərlə bağlı çoxsaylı əsərlərə rast gəlinir. Burada gənclərin identiklik axtarışları, cəmiyyətdə öz yerini tapmaq və özgüvən hissini qazanmaq kimi məsələlər yer alır. Ədəbiyyat isə cəmiyyətin mənəvi durumunun göstəricisi rolunda çıxış edir və onun vasitəsilə gənclərin problemləri aydın olur. Bu baxımdan müasir ABŞ yazıçısı Con Qrinin (1977) yaradıcılığı əlamətdardır. C.Qrinin demək olar ki, bütün əsərlərinin diqqət mərkəzində gənclər, gənc nəslin problemləri və onların mənəvi-ruhani dünyası dayanır.

İdentiklik axtarışları və şəxsiyyət böhranı, fərdin öz müqəddəratını təyinetmə problemi XX-XXI əsr ədəbiyyatının əsas mövzularındandır (Howell, 2011). Bu isə tədqiqatımızın aktuallığını şərtləndirən amillərdəndir. Tədqiqatın aktuallığı eyni zamanda yeniyetmə gənclərlə bağlı ədəbiyyatda (young adult) baş verən proseslərlə izah olunur. Beləki, bu ədəbiyyat yeni qəhrəman konsepsiyasının axtarışı, onun dünyanın yeni nizamındakı mövcudluğu ilə bağlı müxtəlif bədii nümunələr təklif edir. Gənclər üçün yazılan ədəbi nümunələrdə günümüzün yeni reallığı, bu reallığa uyğunlaşa bilən və qarşılıqlı dialoqa hazır olan gənclikdən bəhs edilir. Bu tip ədəbiyyatın reallığı əks etdiyini və bu səbəbdən gənclər tərəfindən qəbul edildiyini qeyd edən amerikalı tədqiqatçı Ketrin Ross yazır ki, xarakterlərin təsviri, mövzunun seçilməsi və situasiyaların ağlabatan olması “young adult” janrını ədəbiyyatda aparıcı istiqamətə çevirmişdir (Ross, 1985).

Con Qrinin “Alyaskanın axtarışında”(2005), “Ketrinlərin bərəkəti”(2006), “Kağız şəhərlər”(2008) və “Eyni ulduzun altında” (2012) romanları gənclər üçün yazılan “young adult” janrının bütün səciyyəvi xüsusiyyətlərinə cavab verir. C.Qrin romanlarında müasir gənclərin həyat hekayələrini canlandırır, ənənəvi “happy end” sonluqdan qaçır və bu şəkildə əsərlərini gerçəkliyə bağlayır, gənclərin identiklik və özünüdərk problemini qaldırır. Onun romanları bu problemi yaşayan bir və ya bir neçə qəhrəman üzərində cəmlənir və bir qayda olaraq şəxsiyyətin identifikasiyası problemini önə çəkir. Conatan Stivens yazır ki, “young adult” çox vaxt böyüklərin qaldırdığı problemlərdən bəhs edir. Bu problemlər bir qayda olaraq yeniyetmə gənclərin identiklik axtarışında yaranır və belə hekayələr elə gəncin öz dili ilə səslənir. Gəncin diliylə səslənən problemlər “young adult” janrını əhəmiyyətli edir (Stephens, 2007).

C.Qrinin “Alayskanın axtarışında” (Green, 2006) romanı dünyanın istənilən yerində yaşayan gəncin istək və ümidlərindən bəhs edir. Bütün dünyada yeniyetmə gənclər nələr haqqında düşünürlər? Yəqin ilk növbədə həyat və sevgi, özünü və öz varlığını, identikliyini dərk etməklə bağlı düşünürlər. “Alyaskanın axtarışında” romanının gənc qəhrəmanı da özgüvən hissini və identikliyini təsdiq etmək üçün oxuduğu məktəbi tərk edir və evindən uzaq, başqa şəhərdə yerləşən məktəbə yola düşür. Bu

məktəbdə real həyatla qarşılaşır, seçim etmək məcburiyyətində qalır. Yalan, hiylə və xəyanətlərdən keçərək əsl dostluğun dəyərini dərk edir, özünü, öz identikliyini əldə edir. İlk sevgisi – Alyaska adlı qızla tanış olur və demək olar ki, dərhal da onu itirir. C.Qrin həyat və ölüm haqqında ciddi suallar qaldırır və "young adult" janrını sevən oxucuları düşündürür. Alyaskanın intihar nəticəsində deyil, təsadüfi avtomobil qəzasında ölümü ən vacib dəyərlərə yenidən baxmaq, mövcudluq və ölüm haqqında düşünmək, həyatı mənalı etməklə bağlı mövzu açır. C.Qrin həyatın ən çətin anlarında belə insan olduğunu unutmamağa, doğru seçim etməyə səsləyir. Qeyd etməliyik ki, yazıçı sanki avstriyalı psixoloq Viktor Franklın "İnsanın məna axtarışı" əsəri ilə polemikaya girir. Məlumdur ki, V.Franklın psixoloji metoduna görə həyatın bütün məqamlarında, hətta ən dəhşətli anlarda belə məna tapmaq və bununla da həyatı davam etdirmək üçün stimul yaratmaq olar (Frankl, 1984). Romanın gənc qəhrəmanı da sosial və məişət problemlərinin yaratdığı qapalı dairədən çıxa, öhdəsinə düşən problemləri aşa bilmir. Onun həyata baxışlarında çaşqınlıq yaranır, identiklik böhranı yaşayır və özünə və ətrafa yönələn çoxsaylı suallar qaldırır. Maylz adlı bu yeniyetmə gənc "lazımsız" olmasından və tənhalıq hissindən əziyyət çəkir, özünü və identikliyini itirmək qorxusu ilə baş-başa qalır. Eyni zamanda o, ailəsində də tamamilə öz başına buraxılır. Məhz bu vəziyyətdə ona həyatına yeni məna qatmaq və onu mənalı etmək fikirləri gəlir. Maylz həyatına məna qatmaq üçün yeni məktəbə, yeni həyat arxasınca gedir.

Məktəbdəki ilk günlərdə anlaşılmazlıqdan əziyyət çəkir. Amerikalı psixoloq Abraham Maslou görə, valideynlər təhlükəsiz, uyğun və münasib mühit təmin edə bilmədikdə, uşaqlarda dərin etibarsızlıq hissləri ilə yanaşı inamsızlıq hissləri də yaranır. A.Maslou hesab edir ki, rahatlıq və hüzur hissləri insanların öz daxili imkanlarını azad ifadə etməsinə səbəb olur (Maslow, 1998). Maylz da yeni məktəbdə rahatlıq və hüzur axtarır, lakin ilk günlərdə ona qovuşa bilmir. Tədricən həmfikirlər və dostlar qazandıqca özgüvən hissini bərpa edir, həyat üçün müəyyən məqsədləri yaranır, gələcəyə inamla baxır. Dostların hər biri öz hekayəsiylə Maylza həyat dərsi keçirlər.

Bütün roman boyu Maylz daxilən gərgin həyat yaşayır, onun mənəvi-əxlaqi axtarışları yeniyetməlik dövründən gəncliyə adlayan qəhrəmanı təcəssüm edir. Əsər boyu oxucu onun xarakterinin müəyyən dəyişikliklərə məruz qaldığını görür, identikliyinin, şəxsiyyətinin əzablı axtarışlarının şahidi olur. İdentiklik və özgürlük axtarışları onu qorxmadan yaşamağa davam etməyə, şəxsiyyətinin bərpasına yol açır.

A.Maslou "Motivasiya və şəxsiyyət" əsərində insanın özünütəsdiq və özgüvən hissinin və şəxsi münasibətlərinin əhəmiyyətindən yazır və qeyd edir ki, insanların sosial sevgiyə və insani bağlılığa ehtiyacı var, özünü reallaşdıran insan bu ehtiyacları ödəyir və öz yolu ilə getməyi bacarır (Maslow, 1998). Maylz da Alayskanı tapır, onu sevir, onun fərdi xüsusiyyətləri Maylzı özünə çəkir, həyatı anlayıb başa düşməyə yardım edir. Hər ikisi bir yerdə dünən və bu gün haqda danışır, fikirlərini və gələcəklə bağlı düşüncələrini bölüşür. Alyaskanın təsadüf nəticəsində qəzada həlak olmasına qədər davam edən dostluq Alayskanın ölümündən sonra yeni bir məna kəsb edir. Beləliklə, C.Qrin yeniyetmə gəncin mənəvi-ruhani dünyasına nüfuz edir, onun psixoloji yaşını yeniyetmə gəncə xas xüsusiyyətlərlə göstərir, onun qarşısında duran problemləri cəmiyyətin sosial problemi kimi vurğulayır. Amma eyni zamanda da qəhrəmanın təkamülü, xəyal dünyasından ayrılması, itkiləri və qazancları da həyatın bir parçası kimi təqdim edilir. Əsərin sonu Maylzın həyat və ölüm, gənclik və gələcək haqqında düşüncələri ilə bitir. Gənc keçdiyi həyat sınaqlarına yekun vurur və bu şəkildə yeniyetmə dövrü ilə vidalaşır.

"Kağız şəhərlər" (Green, 2009) romanında C.Qrin yenə də sevgi və dostluq haqqında, bizi əhatə edən dünya haqqında, onun sakinləri olan insanlarla bağlı əbədi suallar qaldırır. Romanın gənc qəhrəmanları Kventin, onun dostları və sevdiyi Marqo adlı qızdır. Bu gənclər necə yaşamağı anlamaq istəyirlər. Onlar insanların çoxu kimi mövcud vəziyyəti qəbul edib, axına qoşulub getmək və ya hər şeyi dəyişib, yalnız istədiyi kimi yaşamaq kimi sualların qarşısında acizdirlər. "İdentikliyin böhranı" konsepsiyasının müəllifi, amerikalı psixoloq Erik Eriksona görə identikliyin mahiyyəti gözlənilmədən yaranan özəl kimlik duyğusu, fərdin bütövlüyü kimi müəyyən edilir. Amma bu anlayış təkcə şəxsi deyil, həm də qrup kimi düşünülür (Ericson, 1998). Kventin identiklik böhranı yaşayır, öz yolunu axtarır və özünüdərk prosesindən keçərək sonda özümlülük əldə edir. Amma buna qədər müəyyən yollar keçir, kimliyini və özgüvənini bərpa edir. Həyat ona öyrədir ki, insanın xoşbəxtliyi bəzən çox kiçik şeylərdədir. Sadəcə indiki zamanı yaşamalı və sevməli, hər dəqiqənin qədrini bilməli və həyatı gələcəyə saxlamamalıdır. Onun axtardığı yolu hərə bir cür keçir, özünəməxsus yollar arayır. Bəziləri

“kağız şəhərə” üz tutur, bəziləri isə əksinə oradan qaçırlar. Kventin də bu “kağız şəhərə” gəlir, onun xəyali və boş-mənasız bir şey olduğunu dərk edir.

Amerikalı psixoloq Culian B.Rotter insanın fərdiliyini “nəzarət lokosu” nəzəriyyəsi ilə izah edir və yazır ki, insan əməllərinə və həyatına görə məsuliyyəti öz üzərinə götürmə həddinə görə iki tipə ayrılır. Birincilər başına gələn hadisələri özündən asılı olmayan səbəblərdə görür, ikincilər isə hadisələrin başvermə səbəblərini şəxsi səylərilə izah edir, səbəbləri öz əməllərində axtarırlar (Rotter, 1960). Kventinin həyat hekayəsi göstərir ki, o, öz səyləri nəticəsində müsbət və mənfi keyfiyyətlərini görə bilir, həyat təcrübəsindən lazımi bilik və bacarıq əldə edir, özünü mühakimə etməkdən çəkinmir. Yalnız bundan sonra özünə güvənə bilir, identikliyini bərpa edir. Onun uşaqlıq sevgisi Marqo isə əksinə bütün bəlaları özündən aşlı olmayan xarici faktorlarda görür, gah anasını, gah da onu heç vaxt başa düşməyən məktəbli yoldaşlarını qınayır. Başına gələn bütün bədbəxtlikləri ətrafında olan insanların ayağına yazır. Məhz bu səbəbdən “kağız şəhər”də gizlənir. Yaşıdları kimi öz doğma şəhərində yaşaya bilmir, özünü dəyərsiz və bacarıqsız hiss edir. Başa düşür ki, doğulduğu şəhər ona yaddır, onun qaydaları ilə yaşamaq istəmir. O, həyatını istədiyi kimi yaşamağın yollarını axtarır, evdən qaçır və beləcə, “kağız” şəhərin “kağız” sakinlərindən uzaqlaşır, lakin yeni bir “kağız şəhərə” düşür. Əgər Kventin C. B. Rotterin “nəzarət lokosu”nda göstərdiyi ikinci tipə aiddirsə, Marqo hər kəsdə günah axtaran birincilərdəndir. Hark Bosma yazır ki, identiklik şəxsiyyətin məqsədlərini, dəyərlərini və inanclarını özündə cəmləşdirən mürəkkəb fərdi formalaşmadır (Bosma,1985). Bu baxımdan C.Qrinin “Kağız şəhərlər” romanının qəhrəmanlarının davranışları anlaşılan və başa düşüləndir. Onların hər biri öz məqsədinin və dəyərinin axtarışındadır.

Beləliklə, qeyd etməliyik ki, gənclər və onların yaşadığı cəmiyyət daima dəyişir və inkişaf edir, gənclər üçün yazılan ədəbiyyat da bu inkişaf yolunu keçir. Tədqiqat üçün seçilmiş C.Qrinin əsərləri də bu sahədə mövcud olan “young adult” janrını təmsil edir. Bu əsərlər cəmiyyət haqqında həqiqətlərin söylənilməsinə, bəzən isə dünyanın istənilən yerində yaşayan yeniyetmə gənclərlə bağlı problemlərin eyni olması fikrini əsaslandırır. Amerikalı tədqiqatçı Eypril Uellsə görə bu ədəbiyyat yeniyetmə gənclərin nə istədiyini və qarşıya çıxan problemlərin öhdəsindən gələ bildiklərini etiraf edir (Wells, 2003).

Tədqiqatın **elmi yeniliyinə** gəldikdə qeyd etməliyik ki, ilk dəfə yeniyetmə gəncin obrazı identiklik və özünüdərk problemləri müstəvisində təhlilə çəkilir, gənclərin şəxsiyyət böhranı həm ümumən insan şəxsiyyəti, həm də yeniyetmə gəncə aid olan məsələlərlə müəyyən edilir. Tədqiqatda yeniyetmə gəncin obrazı mənəvi-ruhani, şəxsi və sosial problemlər müstəvisində öyrənilir. Təhlil olunan əsərlərdə gənc qəhrəmanların ümumi xarakterik xüsusiyyətləri və fərdi keyfiyyətləri müqayisəli-tipoloji parametrlərlə müəyyən edilir.

**Tədqiqat metodu**

Tədqiqat işində psixologiya ilə bağlı tənqidi ədəbiyyatın təhlil metodundan istifadə edilmiş, ədəbiyyatda yeniyetmə gəncin obrazı identiklik və özünüdərk məsələləri müstəvisində müqayisəli-tipoloji metodla təhlil edilmişdir. Tədqiqatın **metodoloji əsasını** sosial varlıq kimi insan haqqında fəlsəfi-psixoloji nəzəriyyələr, onun şəxsiyyəti, fəaliyyəti və ya passivliyindən asılı olan müddəalar təşkil edir (Erik Erikson, Culian B.Rotter, Abraham Maslou,Viktor E. Frankl ). Eyni zamanda da ədəbiyyatşünaslıqda və ədəbi tənqiddə mövzu ilə bağlı ədəbi-estetik və nəzəri fikirlər yer alır (Robin E.Hauell, Conatan Stivens, Eypril Uells, Ketrin Ross).

**Nəticə**

- Erik Erikson, Culian B.Rotter, Abraham Maslou, Viktor E. Franklinin konsepsiyaları “young adult” janrında yazılan “Alyaskanın axtarışında” və “Kağız şəhərlər” romanlarındakı gənc qəhrəmanların təhlili üçün əsas vermişdir.
- Bədii ədəbiyyatda yeniyetmə gəncin identiklik axtarışları müəyyən edilmiş və onun inikas xüsusiyyətləri öyrənilmişdir.
- Müəyyən edilmişdir ki, “young adult” janrında yazılan əsərlərdə yeniyetmə gənclərin həyatı identiklik axtarışında olan və özgüvənini qazanan obrazların diliylə ötürülür. Onların cəmiyyətdə bütöv şəxsiyyət kimi mövcudluğu özünüdərkdən və identikliyinə qovuşmadan keçir.
- Hər iki əsərin təhlili onu deməyə əsas verir ki, mənəvi-ruhani özgürlüyü əldə edən yeniyetmə gənclər bir şəxsiyyət kimi emosional tənhalığı aradan qaldırırlar. Gənclərin keçdiyi həyat yolu göstərir ki, onlar yalnız öz həyatı və davranışları üçün məsuliyyət daşımır. Eyni zamanda da digər dəyərlərin qorunması uğrunda mübarizəyə qoşulurlar.

- “Young adult” ədəbiyyatı nümunəsi əsasında yeniyetmə obrazlarının öyrənilməsi janrın bədii xüsusiyyətlərinin daha dolğun izahına imkan verir. Seçilmiş hər iki bədii əsərin təhlili baş qəhrəmanların müqayisəsinə əsas yaradır.

- Gənc qəhrəmanların psixoloji-emosional xüsusiyyətləri oxucuda anlayış və mərhəmət hissini inkişaf etdirir, eyni zamanda da reallığı göstərir. Bu isə öz növbəsində “young adult” ədəbiyyatının reallığı əks etdirdiyini, hətta xoşagəlməz məsələlərdən söz açdığını aşkarlayır.

- C.Qrinin qaldırdığı identiklik və özünüdərk problemləri gəncliyin dili ilə səslənir, seçim və sınaqları dəf etmə kimi məsələlər də bu sırada yer alır.

**Ədəbiyyat siyahısı**


1. Bosma, H.A. (1985). Identity development in adolescence: Coping with commitments. Proefschr. Groningen, 114. https://www.researchgate.net/publication/50859021_Identity_development_in_adolescence_Coping_with_commitments
2. Ericson, E.H. (1998). Identity, youth and crisis. L., 336.
3. Frankl, V.E. (1984). Man's Search for Meaning: An Introduction to Logotherapy. Touchstone, 189.
4. Green, J. (2006). Looking for Alaska. London: Penguin Books, 221.
5. Green, J. (2009). Paper Towns. New York: Penguin Group, 320.
6. Howell, R.E. (2011).Young Adult literature: details and trendsetting. University of Missouri, https://www.yumpu.com/en/document/read-/7990421/young-adult-ya-literature-centralspace-home-
7. Maslow, A.H. (1998). Motivation and Personality. Addison-Wesley Educational Publishers ,400 . https://www.holybooks.com/wpcontent/-uploads-/Motivation-andPersonality-Maslow.pdf
8. Rotter, J. B. (1960). Generalized expectancies for internal versus external control of reinforcement. Psychological Monographs: General and Applied, 80 (1): 1–28. https://sci-hub.se/http:/dx.doi.org/10.1037/h0092976
9. Ross, C. (1985). Young Adult Realism: Conventions, Narrators, and Readers // The Library Quarterly: Information, Community, Policy. Vol. 55. No. 2, 174-191. https://www.researchgate.net/publication/258820437_-Young_Adult_Realism_Conventions_Narrators_and_Readers
10. Stephens, J. (2007). Young adult: a book be any other name.: defining the genre // The ALAN review, 34-42. https://scholar.lib.vt.edu/ejournals/-ALAN/v35n1/stephens.html
11. Wells, A. (2003). Themes found in young adult literature: a comparative study between 1980 AND 2000. A Master's Paper for the M.S. in L.S. Degree // Chapel Hill, North Carolina. 128. https://ils.unc.edu/MSpapers/2861.pdf
12. Фромм, Э. (2006). Бегство от свободы. М., 220.


# MÜASİR KOREYA ƏDƏBİYYATININ AZƏRBAYCANDA TƏDRİSİ İLƏ BAĞLI TƏCRÜBİ BAXIŞLAR


**SEVİNC NURİYEVA**
AMEA / Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu
nuriyevasevinc1@gmail.com
AZƏRBAYCAN / BAKI


## XÜLASƏ


Burada müasir Koreya əsərlərinin mövzuları haqqında danışmaq, xüsusilə də, müasir müəllifləri narahat edən məsələlərə toxunmaq istərdim.

Aşağıdakı siyahıda Koreya ədəbiyyatının müasir poeziya və nəsrinə aid əsas aktual problemlər göstərilmişdir. Əlbəttə bu, qısa şərh olub, tam siyahı olmasa da, ümumilikdə müasir Koreya ədəbiyyatı haqqında bir təsəvvür yaratmaq mümkündür:

- şəhər-müasir meqapolis mövzusu (bu mövzu hələ 40-cı illərdə modernistlərin yaradıcılığında inkişaf edirdi); böyük şəhərdə yaşayan insanlar arasında münasibətlər; müasir Koreya cəmiyyətinin çərçivəsinə aid olmayan artıq adamlar haqqında hekayələr;

- ailə münasibətlərinə aid mövzu (ailə haqqında yeni təsəvvürlər mövzusu, ailə münasibətlərində soyuqluq mövzusu, azad məhəbbət mövzusu);

- adət-ənənələrin itirilməsi mövzusu, Koreya milli mədəniyyətinin mənbələrinə qayıdış mövzusu;

- müharibə haqqında xatirələr mövzusu (bir çox müəlliflər həmin illərdə uşaq və yeniyetmə idi), ayrı düşmüş ailələr və parçalanmış Koreya haqqında mövzu.

- Koreya qadınının statusu, onun müasir cəmiyyətdə yeri və rolu mövzusu (qadın nəsri).

Qadınlar ölkənin ictimai həyatında dərhal iştirak edə bilmədilər, müharibədən sonrakı Koreyada konfutsi ənənələrinin və patriarxallığın öz mövqeyini qoruyub saxlaması səbəbi isə milli mədəniyyətdə yer tutmalarına əngəl yaratdı. Qadın ədəbiyyatının inkişafında mühüm yerləri Kan Sin Çje, Pak Von So, Pak Kyôn Ni, O Çin Xi, Çxve Myôn Xi tuturdu.

Qadın ədəbiyyatının nümayəndələri olan müəlliflər ilk öncə özlərini poeziyada sınadılar və onların yaradıcılığında əsas yeri qadın xoşbəxtliyi, ana məhəbbəti və ailə problemləri tuturdu. Bu cərəyanın parlaq nümayəndələri şairə No Çxon Myôn və Mo Yun Sukdur (1).

- insan və sistem, eləcə də, dövlət mexanizmi arasında konfrontasiya, siyasi və fəlsəfi suallar mövzusu;

- bədii ədəbiyyatı kütləvi ədəbiyyatla uyğunlaşdırmaq mövzusu (XXI əsrin əvvəllərində gənc müəlliflərin yaradıcılığı)

**AÇAR SÖZLƏR: Müasir Koreya ədəbiyyatı, tədris üsulu, təhsil, hanqıl yazıçılar, daosizm, konfusizm.**

**ABSTRACT**

A few words about the subject of contemporary works, namely, what excites modern authors, what occupies their thoughts. The following is a list of the main problems that are relevant to modern prose and poetry. Of course, this is very schematic and this is not a complete list, however, a general presentation can still be made:

A) The theme of the city - the modern metropolis (this theme developed during the work of modernists of the 40s); relations between people living in a big city; stories of extra people, about marginal's who do not fit into the framework of modern Korean society;

B) The topic of family relations (new ideas about the family, the topic of alienation in family relations, the theme of free love);

C) The theme of the loss of traditional roots, a return to the roots of Korean national culture;

D) Memories of the war (a generation of authors who during the war were children, adolescents), the theme of divided families, divided Korea;

E) The status of a Korean woman, her role and place in modern society (female prose);

E) The topic of confrontation between man and the system, the state machine, political and philosophical issues;

G) An attempt to combine fiction with popular mass culture (the work of young authors at the beginning of the 21st century).

**KEYWORDS: Modern Korean literature, method of teaching, education, hankyl writers, Taoism, Confucism**

## GİRİŞ

Bu məqalə klassik Koreya ədəbiyyatının qədim dövrlərinin ənənələrini özündə birləsdirən və davam edən müasir Koreya ədəbiyyatinin Azərbaycan tələbələrinə tədrisi ilə bağlı çox da böyük olmayan təcrübəm nəticəsində yaranmışdır. Bu məqsədlə, məqalənin elmi şərhlərində Koreya ədəbiyyatına (XX-XXI əsrlər də daxil olmaqla), bütövlükdə bizdə bu ədəbiyyatın tədrisi üsuluna xüsusi nəzər salınmışdir.

Bildirilmişdir ki, müasir Koreya ədəbiyyati üç mədəni xüsusiyyət və ya üç estetik kateqoriyalar üzərində yaranaraq müasir əsərlərdə də özünü bu şəkildə göstərir:

- han (qəm, qüssə, peşmançılıq, bəxti-taleyə təəssüf hissi)
- çon (bağlılıq, rəğbət, qohumluq, yaxınlıq hissi)
- hehak (yumor, kinayə)

Elə bu üç kateqoriya Koreya ədəbiyyatına xüsusi emosional çalar və əhvali-ruhiyyə verərək, onu digər ədəbiyyatlardan fərqləndirir.

Məqalədə müasir Koreya ədəbiyyatının tədrisi ilə baglı bu fikir də əsas nəzərə çatdırılır ki, ali məktəblərdə tələbələrə ədəbiyyata dair çatdırılan materialların necə və hansı nümunələrdə verilməsi məhz onların maraqlarının artma dərəcəsini təyin edir və gələcəkdə bədii ədəbiyyatın tədqiqi işiylə məşgul olmasina səbəb olur. Ya da tələbələrin tərcuməcilik sahəsini seçmək fikirlərini təsdiqləməklə

onlari öyrəndikləri ölkənin, o cümlədən, Cənubi Koreya ədəbiyyatının ədəbi nümunələrini daha yaxından bilməyə gətirib cıxarir.

**ALİ MƏKTƏBLƏRDƏ KOREYA ƏDƏBİYYATININ TƏDRİSİ METODİKASI**

Müasir Koreya ədəbiyyatının tədrisi məsələsinə keçməzdən əvvəl, mən ali məktəb həcmində ümumiyyətlə ədəbiyyatın necə tədris edilməsi ilə baglı bir neçə şərhlər vermək istərdim, çünki söhbət ədəbiyyatın tədrisinin müasir problemlərinə aiddir.

"Metodika"(üsullar sistemi) sözündən bir quruluq və rəsmi fikir yayılır. Lakin bunu da təsdiqləmək lazımdır ki, ali məktəblərdə tələbələrə ədəbiyyata dair çatdırılan materialların necə və hansı nümunələrdə verilməsi məhz onların maraqlarının artma dərəcəsini təyin edir və gələcəkdə bədii ədəbiyyatın tədqiqi işiylə məşgul olmalarina səbəb olur. Ya da tələbələrin tərcüməçilik sahəsini seçmək fikirlərini təsdiqləməklə onları öyrəndikləri ölkənin bədii ədəbiyyat nümunələri ilə tanış etmək lazımdır.

İlk növbədə bu faktı nəzərə almaq lazımdır ki, indiki tələbələr artıq ədəbiyyata aid yetərli qədər bilik və bacarıqları orta məktəb proqramlarından mənimsəyən, müəyyən bədii zövqə və istəklərə malik şəxsiyyətdir. Təkcə tələbələri deyil, bütövlükdə oxucu auditoriyasını götürsək, deyə bilərik ki, hər bir oxucunun mətni necə oxumaq haqqında öz baxışları vardır. Ali məktəb təhsilinə gəlincə, onun orta məktəbdən fərqi odur ki, burada sərbəst öyrənmənin həcmi daha artıqdır. Buna görə də müəllimin qarşısında belə bir məsələ durur ki, o, keçmiş məktəbliyə sərbəst düşünməni öyrətsin. Sərbəst oxuma o vaxt alınar ki, tələbə bu və ya digər ideoloji fikirlərin təsiri altına düşmədən, onlardan öz dünyagörüşünün formalaşmasında rolunu dərk edə bilsin. Digər tərəfdən, müəllimin işinə tələbələri ədəbi mətnlərin oxunması kimi prinsip və vərdişlərlə təlimləndirmək də daxildir. Lakin bu təlim ümumi müəllim təqlidinə bənzəməməlidir. Koreyaşünas tələbələrdən aparılan sorğuya əsasən, məlum olur ki, bir çox orta məktəblərdə təəssuf ki şagirdə mətni tam dərk etmək seçimi verilmir; şagird ilk növbədə mətni oxumalı, oradakı əsas faktorları yadda saxlamalı, əsərin əsas fabulasını nəzərə çatdırmalıdır. Şagird ədəbiyyatdan zövq almır: müəllifin üslubuna heyran olmur, əsərdə qoyulan etik problemləri düşünmür, sərbəst nə isə yazmağa cəhd edə bilmir. Bu cür məktəb tədrisi üsulunda əsas diqqət sitatların gətirilməsinə və formal biliklərin təyin olunmasına yönəlir (2).

**MÜASİR KOREYA ƏDƏBİYYATININ TƏDRİS OLUNMASINDA ƏSAS İSTİNAD MƏQAMLARI**

Beləliklə, ixtisas kursunun əvvəlində müəllimin qarşısında belə bir məsələ durur ki, əsas istinad məqamlarını göstərə bilsin. Bunlar çox olmasa da, əsaslarını sadalamaq istərdim:

1) "Ədəbiyyat" anlayışı avropalılar və koreyalılar üçün müxtəlifdir: koreyalı üçün yazılı nitqin əhəmiyyəti böyükdür. (məsələn, ənənəvi Koreya ədəbiyyatında yaranmış Kim Busikin yolu və rahib İryonun yolu). Koreyada qəbul edilən "bədii ədəbiyyat" anlayışı avropalı üçün eyni estetik hissləri oyatmaya bilər, yaxud əksinə. Mübaliğəsiz demək olar ki, koreyalı üçün yazılı nitq dini mahiyyət kəsb edir. Sözlər sanki "materiallaşır", nümunə olaraq, poetik janr hyanqaları- ana dilində poeziyanı göstərmək olar. (Şilla və üç dövlət haqqında dövr), ənənəvi ədəbiyyat, həmçinin, koreyalılarla işgüzar yazılar müasir cəmiyyət haqqında çoxsaylı "qoruyucu yazılar" diqqəti cəlb edir. Koreya ədəbiyyatının ikidilli olmasını da nəzərə almaq lazımdır. Bu da öz ardınca çoxsaylı məlumatlar yığımını daşıyır. Təsadüfi deyildir ki, müasir Koreya ədəbiyyatında yeni termin olar hanqıl şide çakka-yazıçılar nəsli yalnız milli dildə yazır. Bu da bədii əsərlərin təkcə formasının deyil, məzmununun da köklü şəkildə dəyişilməsinə gətirib çıxardır. Əgər əvvəllər müəlliflər öz yazılarında yalnız çin yazılı mənbələrindən gətirdikləri çoxsaylı obrazlar və sitatlardan istifadə edirdilərsə, hanqıl yazıçılar nəsli isə Koreya dilini bacardıqları qədər sınaqlardan keçirərək, yeni obrazlar yaradır və bunlar da yalnız ana dilində olan təsviri vasitələrlə ötürülür;

2) Koreya ədəbiyyatını başa düşmək üçün müəyyən background (arxaplan) biliklərə xüsusi yiyələnmək lazımdır. Koreya tarixini və mədəniyyətini bilmək vacibdir, çünki siyasi və sosial tarix Koreyada ədəbi ənənələrin inkişafına böyük təsir göstərmişdir. Keçən əsrin ikinci yarısına aid ədəbiyyatda bu cür biliklərin olması daha çox təzahür edir. Həmin vaxtlarda Koreya tarixində çox vacib hadisələr olmuşdur. (məsələn,1945-ci ildə Koreyanın yapon müstəmləkəsindən azad edilməsi; 1945-48-ci illər-tam azadolma hisslərini keçirdiyi dövr; 1950-53-cü illər-Koreya müharibəsi) ;

3) Çinin, Yaponiyanın, Rusiyanın və sonralar Amerikanın koreyalıların dini dünyagörüşlərinə mədəni təsiri də eyni zamanda koreyalıların ədəbi meyllərinə böyük təsir etmişdir. Burada onların çoxşaxəli Avropa ədəbi ənənələrinin içindən seçdikləri ən parlaq ideya və xüsusiyyətlərini özəlləşdirə

bilmək qabiliyyətinə heyran olmamaq olmur. Elə əsərlər ortaya çıxır ki, bunlar əslində zahiri görünüşünə görə avropalıya tanış, daxilinə görə tamamilə millidir. Başqa sözlə desək, koreyalılarda Avropa mədəni mətnlərinin əsas cəhətlərinə üstünlük verməklə, onları öz milli koloritində yaratması yaxşı alınır. Buradan yeni fenomen olan hallyu-"koreya dalğaları" yaranır;

4) Müasir Koreya əsərlərinin demək olar ki, hamısının açıq və ya gizli ideyası-qəhrəmanların hərəkətində dualizm (konfutsiçi-daosçu) meyllərini göstərməkdir. Bir tərəfdən əsərin qəhrəmanı konfutsiçi həyat tərzinə uyğun, yəni ciddi çərçivələr daxilində hərəkət edir. Bu onun zahiri tərəfdən görünüşüdür. Digər tərəfdən o, sosium çərçivəsində çıxır, "daos" kimi hərəkət edir, daxili azadlıq tapır, o azadlığı ki, cəmiyyət ehkamlarından və normalarından uzaqdır. Müasir Koreya ədəbiyyatında bu daha çox özünü modernist və post-modernist ədəbiyyatda biruzə verir. Adətən buradakı qəhrəmanlar daha çox deviant hərəkətlərə, yəni ağılsızlığa bərabər hərəkətlərə yol verir. Bu, eyni zamanda qədim Koreya adət-ənənələrindən gələn şamanizm elementləri ilə qarışır (məsələn, işdə-soyuq müdirdirsə, adi həyatda-romantik, kövrək insandır, böyük uşaqdır və s.) ;

5) Koreyalıların təbiətə olan xüsusi münasibətini qeyd etməmək olmaz. Bunlar indiyə kimi qorunub saxlanılır. Buna misal olaraq, şəxsi və rəsmi şəkildə salamlaşma və başlanğıc ifadələri göstərmək olar. Hətta mötəbər kişilərin məktub yazarkən işlətdiyi "bu gün ladan ağacı gül açmışdır", ya da "bu gün albalı çiçəklərinin töküldüyünün vaxtıdır."

Ənənəvi əsərlərdə olduğu kimi, müasir hekayələrdə də "şəhər"-"kənd" ("təbiət") qarşıdurması qorunub saxlanilir; Kim Toninin əsərlərində buna rast gəlinir. Təbiət harmoniya və nizamlama simvolu kimi insan tərəfindən özünə tabe edilmir, əksinə, insan təbiətə qulaq asır, ona tabedir (Avropa ənənələrində insan təbiətə hakimdir), təbiət hadisələriylə, demək olar ki, təbiət təqvimi ilə yaşayır;

6) Üç mədəni xüsusiyyət və ya üç estetik kateqoriyalar tez-tez müasir əsərlərdə özünü göstərir:

- han (qəm, qüssə, peşmançılıq, bəxti-taleyə təəssüf hissi)
- çon (bağlılıq, rəğbət, qohumluq, yaxınlıq hissi)
- hehak (yumor, kinayə)

Elə bu üç kateqoriya Koreya ədəbiyyatına xüsusi emosional çalar və əhvali-ruhiyyə verərək, onu digər ədəbiyyatlardan fərqləndirir;

7) Bütövlükdə müasir Koreya ədəbiyyatında üç əsas qol, ya da üç əsas istiqamət vardır:

a) qədim ənənələrə əsaslanan ədəbiyyat (məsələn, müasir poeziyada ənənəvi lirik janrın ünsürlərinə rast gəlinir);

b) modernist ədəbiyyat (sonralar post-modernist)-bu ədəbiyyatda qəhrəman, adətən, özü-özüylə danışır, yəni onun hisslərinin daxili aləmdə təsvir olunması göstərilir;

c) sosiallaşmağa yönəldilmiş (dəvət edilmiş) ədəbiyyat, buradakı qəhrəman isə dünyaya müraciət edir, onun baxışları başqalarına yönəlib; bu əsərlərdə ictimai-sosial problemlər müzakirə olunur. Əlbəttə, bu, şərti bölgü sayılır, çünki istənilən bədii mətnin bu və ya digər ünsürləri müxtəlif cərəyanlarda özünü göstərə bilər. Lakin bəzi məqamlar da, xüsusilə, tələbədə müəyyən təsəvvürlərin yaranması üçün ona başlanğıc mərhələlərdə belə cədvəllərdən istifadə etməsinə yol verilir;

8) Müasir Koreya ədəbiyyatında çoxcildli romanlar-eposlar-teha sosol adlı janr vardır ki, bunlar da öz növbəsində tarixi əsərlərin ənənəsinə istinad edir. (Avropa ədəbiyyatında bunlar saqalardır.) Məsələn, Ço Çonne (təx. 1943), Pak Kyonni (1926-2008);

9)Həmçinin tələbələrə xarici dillərə tərcümə etmək üçün Koreya əsərlərinin necə seçildiyini danışmaq lazımdır. Koreyada tərcüməçilik işini yerinə yetirən əsas təşkilat Koreya Ədəbiyyatının Tərcüməsi İnstitutudur. Bu İnstitutda bu və ya digər xarici dilə çevirmək üçün əsərlərin siyahısı vardır. Bu məqsədlə tələbələrlə birlikdə ədəbi əsərlər maraqla seçilərək təhlil edilməli və lazımi nəticələr çıxarılmalıdır;

10) Eyni zamanda, ixtisas kursunda tələbələr üçün nəzərdə tutulan oxu materiallarının seçilməsi işi o qədər də asan deyildir, çünki material çoxdur, tələbələrin işə bütövlükdə vaxtları azdır, onlar Koreya dilində bir çox bədii əsərləri oxumalıdırlar. Lakin şəxsi təcrübəmdən irəli gələn fikrimə görə,o əsərlər seçilməlidir ki, bunlar bir yandan Azərbaycan oxucularında həqiqi maraq yaratsın, digər tərəfdən isə Koreya ədəbiyyatının bütün özəlliklərini aydın şəkildə göstərə bilsin.

**TƏDQİQAT METODU**

Məqalədə təqdim olunan təhlillər bir daha sübut edir ki, Koreya ədəbiyyatının öyrənilməsi, tədris olunması məsələləri bu gün təkcə şərqşünaslığımızın deyil, ədəbiyyatşünaslığımızın da əhəmiyyətli problemlərindəndir. Hələ XX əsrdə bu sahədə müəyyən işlər görülsə də, əldə edilən nəticələr

qənaətbəxş deyildi. Ona görə də Koreya ədəbiyyatının öyrənilməsi və tədris olunması vacib məsələlərdən biri kimi ədəbiyyatşünaslığımızın qarşısında dayanmaqdadır.

Təhlillərdən aydin oldugu kimi, bütövlükdə Koreya ədəbiyyatının dövrlər üzrə tarixi inkişaf yolunun, janr və mövzu problemlərinin, bədii-fəlsəfi düşüncələrinin və bunun ifadə yollarinin, bir cox nəzəri problemlərin, həm də digər ədəbiyyatlarla, o cümlədən də milli ədəbiyyatımız ilə ortaq keyfiyyətlərinin öyrənilməsi vacib olan məsələlərdəndir.

**NƏTİCƏ**

Yuxarıda söylənilənləri yekunlaşdırmaqla bu nəticəyə gəlmək olar ki, bu məlumatların bir qədər sərt və şərh olmasına baxmayaraq, tələbələrin düzgün yönəlməsində və baza hazırlığında onlar üçün Koreya hekayə, roman və poetik mətnlərinin bütün incəliklərini və dərin fəlsəfəsini öyrənmək baxımından bir o qədər çətin məsələ olmayacaq.

Müəllim üçün isə onun fəaliyyıtinin ən böyük nəticəsi o olacaqdir ki, tələbələr Koreya ədəbiyyatı üzrə mühazirəni dinlədikdən sonra "çubuq altından çıxmış" rəsmi oxucudan həqiqi oxucuya çevriləcək, hansı ki, öz növbəsində Koreya bədii ədəbiyyatını oxuduqda ondan həqiqi və estetik zövq ala biləcəkdir.

**ƏDƏBİYYAT SİYAHISI:**

1. German Kim "Müasir Cənubi Koreya ədəbiyyatı" məqalə. "Ədəbiyyatşünaslıq" qəzeti Bakı, 7 aprel 2018. səh. 12-13. www.Kaspi.Az.
2. Ольшанский Д.А. Современные проблемы преподавания литературы: о преодолении тоталитарности педагогических стратегий / Инновации и образование. Сборник материалов конференции. Серия Symposium, выпуск 29. СПб:Санкт-Петербургское философское общество, 2003. С.159-167. Доступно 28.04.2008 14:49. Н.А.Савченко Источник: http:// antropology.ru/ru/texts/olshansky/educinnov_20.html
3. А.Ф.Троцевич «История Корейской традиционной литературы» (до XX в.)
4. Курбанов С.О. Курс лекций по истории Кореи с древности до конца XXв. С.-Пб.университета. 2002.
5. Ли В.К. Корейская литература // "История всемирной литературы». М , 1989, т.6.

# ANTONİYA SUZƏN BAYETTİN "BAĞDAKI QIZ" ROMANINDA CƏMİYYƏT MƏSƏLƏLƏRİ

**ŞAHANƏ MUSAYEVA**
Bakı Mühəndislik Universiteti
Pedaqoji/ İngilis dili
smusayeva@beu.edu.az
BAKI, AZƏRBAYCAN

**Xülasə**

Bayett tərəfindən yazılan "Bağdakı qız" romanı 1950-ci illərdə II Dünya Müharibəsi sonrası İngiltərədə baş verən hadisələri və onların insanların həyatlarına təsirini nəql edən dərin və çoxməzmunlu bir əsərdir. II Elizabetin tacqoyma mərasimi, Süveyş böhranı kimi tarixi hadisələr romana önəmli fon hazırlayır. Bu hadisələr xarakterlərin həyatlarında dərin izlər yaradır və kütləvi dəyişikliklərlə birlikdə onların şəxsi inkişafını göstərir. Əsər müxtəlif xarakterlər vasitəsilə fərqli həyat təcrübələrini kəşf edir, eyni zamanda 1950-ci illərin cəmiyyət və cinsiyyət rollarına aid tənqidlər

ehtiva edir. Qadın xarakterlərinin güclü təmsili, gender bərabərliyi, qadınların təhsil almasının zəruriliyi və azadlıq kimi feminist mövzular da qələmə alınır. Roman zəngin ədəbi və mədəni istinadlarla doludur. Şekspirdən Yunan mifologiyasına, müasir ədəbiyyatdan fəlsəfəyə qədər yayılan istinadlar əsərin dərinliyini artırır.

**AÇAR SÖZLƏR: GENDER BƏRABƏRLİYİ, SƏNƏT, CƏMİYYƏT, TARİXİ HADİSƏLƏR.**

## GİRİŞ

Antoniya Suzan Bayett müasir ədəbiyyatın önəmli nümayəndələrindən biri hesab edilir. Bayettin əsərləri oxucuları intellektual olaraq düşündürərkən, eyni zamanda dərin məzmunu ilə onlara emosional təsir göstərir. Yazıçı feminist ədəbiyyatdakı qarışıq münasibəti və töhfələrilə qadın təcrübəsi, cinsiyyət və güc kimi mövzuları ələ alaraq bu sahədə olan müzakirələrə işıq tutmuşdur. Əsərləri feminist nəzəriyyənin və ədəbiyyatın müxtəlif yönlərini kəşf etmək və anlamaq istəyən oxucular və tədqiqatçılar üçün zəngin bir mənbə rolunu oynayır. "Qız bağda" romanı Bayettin tetralogiyasına aid olan ilk kitabı olub Potter ailəsinin həyatlarını və dövrün sosial, mədəni dəyişiklikləri ilə necə əlaqəli olduqlarını araşdırır. Eyni zamanda fərdi münasibətlər, cinsiyyət rolları və şəxsiyyət, keçmişlə bugün arasındakı zaman keçidləri, sənət və yaradıcılıq cəhdləri və ailə əlaqələri kimi temaları da özündə ehtiva edir. Bayettin hərtərəfli açıqlaması, dərin xarakter inkişafı və elmi-mədəni mövzuları aşkara çıxarma cəhdi "Bağdakı qız" və Potterlər haqqında tetralogiyaya aid olan digər əsərlərin məzmununda da açıq bir şəkildə hiss edilir.

Bayettin "Bağdakı qız" romanı 1950-ci illərdə İngiltərədə, xüsusilə 1953-cü ildə kraliça II Elizabetin tacqoyma mərasimi əsnasında Yorkşirdə baş verən bir ailə hekayəsindən bəhs edir. Roman Potter ailəsi və əhatəsindəki insanların həyatlarına fokuslanarkən, o dövrün sosial, kulturoloji və intellektual tərəflərini də tədqiq edir. Eyni zamanda əsər qəhrəmanların keçmişlə olan əlaqələrini və keçmişdən gələn irsini araşdırır, belə ki, keçmişdə baş verən hadisələr və münasibətlər xarakterlərin şəxsiyyətini və qərarlarını formalaşdırır. Əsər zamanın və tarixi dəyişikliklərin mürəkkəbliyini araşdırır və bu məsələləri özünün önəmli bir hissəsinə çevirir. Bəhs edilən dövrdə müharibə sonrası köklü dəyişiklik yaranmışdır və tarixi hadisələr xarakterlərin üzərində birbaşa təsirə malikdir. Müharibədən sonrakı dövrdə İngiltərədə milli özünüdərk, güc birləşdirmə və yenidən quruluşa cəhd kimi məsələlər ön planda idi. Roman 1956-cı ildə yaşanan Süveyş böhranını birbaşa olaraq incələməsə də, İngiltərə imperatorluğunun geriləməsini və millətlərarası siyasətin dəyişkən dinamikasını da göstərir. Bu tarixi hadisə şəxsiyyət, güc və xəyal qırıqlığı kimi məsələləri də gücləndirir. 1950-ci illər İngiltərədə dərin mədəni və intellektual çevrilişlərin yaşandığı bir dövrdür. Mövcudluq, feminizm və cinsəl çevriliş kimi meyllərin artdığı bir zamandır.

Roman cinsiyyət rolları və şəxsiyyət kimi məsələləri də incəliyi ilə araşdırır və sözügedən dövrdə hökm sürən ənənəvi cinsiyyət rollarını göstərir. Qadınların birmənalı olaraq ev içi işlərlə və ailə ilə əlaqədar olaraq adlandırıldığı, kişilərin isə sosial və profesional sahələrdə çox daha irəlidə olduğu bir dövrdür. Oxucu bəhs edilən dövrün xüsusiyyətlərini Potter ailəsində hökmlü, inadcıl, tələbkar ata rolu olan Bil və həmin tələbləri qarşılamaqla yaşayan ana rolunda, Vinifred xarakterində müşahidə edir. Əsərin əsas qəhrəmanlarından olan Stefani və Frederika bacıları öz mənlikləri və həvəslərini kəşf etmək axtarışında olaraq cəmiyyətin tətbiq və tələb etdiyi normalarla mübarizə aparırdılar. Stefani Potter ənənəvi qadın modellərinə qarşı duran, teatr dünyasında özünə təqdirəlayiq bir yer tapmış, səhnə sənətlərinə olan sevgisi ilə yanaşı, dərin bir anlayışa və ədəbi biliyə malik olan bir xarakterdir. Onun bacısı Frederika ilə olan münasibəti romanda önəmli bir yer tutur, ikisi arasında bəzən rəqabət və konfliktlər yaşansa da, dərin bir sevgi və bağlılıq var vardır. Stefani cəmiyyətdə mövcud olan qadın roluna uymaq yerinə, öz mənliyini formalaşdırır və güclü bir xarakter olmaq yolunda irəliləməkdə bacısına da yardımçı olmağa çalışır. Roman qadınların təhsil almaq və intellektual olaraq inkişaf etməyinin zərurətini vurğulayır. Buna Frederika Potterin universitetdə təhsil almaq və sadəcə ev işləri ilə məhdudlaşmayan bir yol axtarışında olduğunu misal göstərə bilərik. Deyilənləri nəzərə alaraq nəticə çıxarmaq mümkündür ki, "Bağdakı qız" romanı mənlik və azadlıq axtarışını ifadə edərək xarakterlərin öz kimliklərini və cəmiyyətdəki kütləvi gözləntilər arasındakı tarazlığı tapmağa çalışmalarını və bu uğurda bir yola çıxmaqlarını göstərir.

Bayettin "Bağdakı qız" romanında sənət və yaradıcılıq önəmli mövzulardandır və bir çox xarakterin həyatında danılmaz rol oynayır. Roman teatr dünyasına dərin bir baxış təqdim edir. Stefani

Potter kimi qəhrəmanlar teatrın yaradıcı və ifadəedici gücündən istifadə edərək özlərini ifadə edirlər. Teatr bu insanlar üçün bir vasitə olmaqla bərabər, özlərini kəşf etmək və emosional təcrübələrini bölüşmək üçün bir yer olaraq da xidmət edir. Əsərdə bir çox xarakterlər ədəbi əsərlər və yazıçılar haqqında düşünür və danışır. Onlar öz həyatlarını və hadisələri anlamaq üçün ədəbiyyatdan istifadə edirlər və bu yaradıcı yazma müddəti, özünüifadə üçün bir vasitə olur. Roman xarakterlər arasında ədəbiyyat haqqında edilən söhbət və müzakirələrlə doludur. Bu müzakirələr kitabın əsas məzmununu gücləndirir və qəhrəmanların düşüncə qabiliyyətlərinin inkişafına töhfə verir. "Bağdakı qız" bir çox ədəbi istinadı özündə ehtiva edir və İngilis ədəbiyyatının klassik əsərlərindən mifoloji hekayələrə qədər geniş bir məlumatı oxucuya çatdırır.Sənət və rəsm romanın başqa bir hissəsidir. Burada sənət əsərlərinin əsas vəzifəsi insanların mənəvi dünyalarında yaşadıqlarını ifadə etmə və mənalandırma vasitələrindən biri olmaqdır. Bir çox xarakter yaradıcılıq və özünüifadə axtarışındadır və sənət onlar üçün qurtuluş yollarından biri olaraq görünür. Sənətin cəlbedici gücü insanların həyatlarını zənginləşdirir və məna qatır. Biz bu mənada yenidən əsərin baş qəhrəmanı olan Stefaninin başdan sona qədər sənət və ədəbiyyatla bağlı dərin fikirlərinin şahidi oluruq.

**TƏDQİQAT ÜSULLARI**

Tezisi yazarkən bəhs olunan dövrdə baş verən tarixi hadisələri və onların insanların həyatlarına təsirini göstərmək üçün tarixi metoddan istifadə edilmişdir. Cəmiyyətdə hökm sürən problemlərin insanların, xüsusilə qadınların psixologiyasında yaratdığı təsirləri araşdırmaq, dərin kök salmış adət-ənənələrə qarşı duraraq öz kimliyini müdafiə etməyə çalışan qadınların mənəvi dünyasını ifadə etmək üçün psixoloji metoddan istifadə edilmişdir.

**NƏTİCƏ**

Nəticə olaraq "Bağdakı qız" zəngin və dərin xarakterlər, əsaslı tarixi arxa fon, güclü feminist mövzular və ədəbi xüsusiyyətlərilə diqqət çəkən bir romandır. A.S.Bayettin usta qələmi oxuçuları 1950-ci illərin İngiltərəsinə aparır və insan təcrübəsini, ailə əlaqələrini və cəmiyyətdəki dəyişikliyi incəliyi ilə anlamalarına yardımçı olur.

**İSTİNADLAR**

1. Yifan Lee, **"**Frederica Potter's Ritual and Regeneration in A. S. Byatt's The Virgin in the Garden", International Journal of Languages, Literature and Linguistics, Vol. 2, No. 1, March 2016
2. Alexa Alfer, Time Will Tell: Time and Narrative in A. S. Byatt's The Virgin in the Garden, University of Westminster, 2017
3. https://www.themodernnovel.org/europe/w-europe/england/byatt/virgin/ (21.02.2024)

# ENTONİ BERCESSİN "QURULAN PORTAĞAL" ROMANI: ŞİDDƏT, AZADLIQ VƏ CƏMİYYƏTİN DƏYİŞƏN ÜZÜ

**AYSEL MAMEDOVA**
Bakı Mühəndislik Universiteti
Pedaqoji/ İngilis dili
*amammadova1@beu.edu.az*
BAKI, AZƏRBAYCAN

**XÜLASƏ**

Tezis ingilis yazıçı Entoni Bercessin "Qurulan Portağal" adlı romanında 20-ci əsr İngiltərəsində gənclərin psixoloji vəziyyətini, şiddətin onların davranışlarına necə təsir etdiyini və cəmiyyətin idarəetmə sisteminin əsl üzünü əks etdirir. Bu dövrdəki siyasi, sosial və mədəni məsələlər Bercessin romanında ətraflı şəkildə analiz edilmiş və bu problemlərin insan və cəmiyyət üzərində əksi göstərilmişdir. Tezisdə romanın əsasını təşkil edən şiddət, zorakılıq, insan azadlığı kimi mövzular təhlil edilmiş və onların fərd üzərindəki təsirinin nə ilə nəticələndiyi təsvir edilmişdir.

**AÇAR SÖZLƏR: ŞİDDƏT, İNSAN AZADLIĞI, CƏMİYYƏT**

## GİRİŞ

Con Entoni Bercess Uilson ədəbiyyat dünyasının bənzərsiz və çoxyönlü bir nümayəndəsi kimi tanınır. O, yazıçı, bəstəkar və tənqidçi olaraq müxtəlif mövzularda əsərlər yaratmış və ədəbiyyat tarixində dərin bir iz buraxmışdır. Bercess erkən yaşlarından musiqi və ədəbiyyata maraq göstərmiş, ingilis ədəbiyyatı üzrə təhsilini bitirib müəllim olaraq çalışmışdır. Bu illər ərzində keçirdiyi təcrübələr onun insan təbiəti haqqındakı anlayışını və yazı bacarıqlarını dərinləşdirmiş, 30-dan çox roman, səhnəcik, şeir və ssenari yazmasına gətirib çıxarmışdır. Bercess əsərlərində qərb cəmiyyətinin müxtəlif tərəflərini siyasi, sosial, mədəni və fərdi yönlərdən araşdırmışdır. Onun əsərləri yalnız ədəbi yöndən deyil, eyni zamanda, mədəni və fəlsəfi olaraq da dərindir və insan təbiətini, sosial təbəqələşməni və müasir dünyanın qarışıqlığını özündə cəmləşdirir. Bercess sənətin və şəxsiyyətin azadlığını müdafiə edən və cəmiyyətin qanunlarına meydan oxuyan bir yazıçı kimi də xatırlanır. Kəskin zəkası, satirası və azad ruhu onun ədəbiyyat dünyasının öncül şəxsiyyətlərindən biri olmasına səbəb olmuşdur. Bununla yanaşı, o, musiqi və ədəbiyyat arasındakı əlaqələrə tez-tez toxunaraq və bir çox əsərlərində bu iki sahəni uğurla birləşdirərək özünün bənzərsiz tərzini ortaya qoymuşdur.

Entoni Bercessin 1962-ci ildə nəşr olunan və ona dünyəvi şöhrət qazandıran "Qurulan Portağal" adlı romanı müasir ədəbiyyatın ən diqqətçəkən və ən mübahisəli əsərlərindən biri hesab olunur. Antiutopik bir gələcəkdə baş verən bu roman özlərini təcavüzə, işgəncəyə, oğurluğa və cinayətə həsr edən və bundan zövq alan bir qrup gəncin və İngiltərədəki gənclik mədəniyyətinin panoramasını verir, oxucuları insan təbiətinin qaranlıq tərəflərinə və azadlıq anlayışının sərhədlərinə yönləndirərkən, eyni zamanda da, cəmiyyətin dəyişimini və fərdin azadlığının vacibliyini mühakimə edir. Bununla yanaşı, bu roman özündə gənclik səhvlərini, sərbəstlik adı altında əxlaqi çöküntünü və cəmiyyətin idarə olunması kimi məsələləri ehtiva edən bir şahəsərdir.

Roman Aleks adlı on beş yaşında gənc bir küçə dəstəsinin başçısı olan anti-qəhrəman tərəfindən danışılır. Bercess romanda Nadsat adlanan argo dilindən istifadə edərək onu daha da zənginləşdirmişdir. Bu dil rusca, ingiliscə və bir neçə digər dilləri özündə cəmləşdirən qarışıq bir dildir və Alexin roman boyunca bu dildən istifadə etməsi oxucuda daha da maraq oyadaraq onun baş qəhramanın düşüncələrinin dərinliyinə enməsinə gətirib çıxarır. Aleks şiddət dolu hərəkətlərinə və əxlaqi dəyərlərinin zəif olmasına rəğmən oxucunun sevgisini qazanmağı bacaran bir xarakterdir. Bercess şiddəti əsərin baş qəhramanı olan Aleksin simasında onun küçədən həbsxanaya qədər uzanan müddətdə etdiyi səhv dolu hərəkətləri ilə təsvir edir və şiddət və təcavüzün formalarına da toxunur. Aleks və onun dəstəsi hər növ cinayət törədirlər və onların işlətdiyi cümlələr, etdiyi hərəkətlər kin, nifrət, qəzəb və intiqam doludur. Bunun səbəbi isə cəmiyyət və iqtidardır. Romanda qeyd olunan bu cümlə əslində onun məğzini müəyyən mənada əks etdirir: "Yetkin insanların müharibə etdiyi, bombalar atdığı, bir-birini kəsib-doğradığı, qəddarlığın tüğyan etdiyi bu dünyada gənclərin vətənpərvər, dinə bağlı və tərbiyəli olmaları mümkün deyil." Bir gün Aleks günah işləyərkən tutulur

və bundan sonra cəmiyyətin onu "yaxşılaşdırmaq" üçün tətbiq etdiyi Ludoviko Texnikasına məruz qalır. Bu texnika Aleksin şiddət dolu hərəkətlərini azaltmaq üçün istifadə edilən bir psixolojik şərtləndirmə üsuludur. Nəticə etibarilə, Aleks öz iradəsi xaricində şiddət dolu hərəkətlərdən qaçmağa məcbur edilir və əsl azadlığından məhrum buraxılır. Burgess roman boyunca Aleksin şiddət və azadlıq arasındakı balansı axtarmasını, cəmiyyətin gücünü və fərdin öz şəxsiyyətini itirmə təhlükəsini vurğulayır. Əsərdə Ludoviko Texnikası kimi manipulyasiya edici vasitələrin istifadəsi ilə cəmiyyətin fərd üzərindəki gücü və fərdin azadlığının limitlənməsinin nəticələri göstərilir və beləliklə, Aleks şiddətsiz bir düşüncəyə sahib ola bilməyən bir insana çevrilir və bu da onun azadlığının bir növ itirilməsinə gətirib çıxarır. Bu texnikanın məqsədi cinayət törətmə refleksini öldürmək, amma bunu fərdin iradəsi xaricində etməkdir. Bu müalicədən sonra fərd nə şiddət göstərə biləcək, nə də dövlətə qarşı çıxacaq. Ludoviko müalicəsi zamanı Alex bir aparata bağlanır və musiqi ilə birlikdə şiddət dolu qısa filmlərə baxmağa məcbur edilir. Beləliklə, ona edilən bu psixolojik təsirlərdən Alex artıq özünü xəstə hiss edir və özünü idarə etmək bacarığını yavaş-yavaş itirir. O, artıq bütünlüklə idarə olunmağa hazır idi, hansı ki, iqtidarında istədiyi də bu idi. Alex müalicədən qabaq qanun tanımayan biri idisə, artıq o, "qanunlardan qorxan yaxşı bir vətəndaş" olur.

Aleks qəddar, kinli, təcavüzkar, bir sözlə, əsl cinayətkardır, amma kitabda o cinayətlər sadəcə diqqəti çəkmək üçün işlədilmişdir. Əslində, Alex mövcud olan sistemə qarşı baş qaldıran bir obrazdır. Bercess burada şiddətin tərifini deyil, əksinə, cəmiyyətin iç üzünü, onun qaranlıq tərəflərini göstərməyə çalışır. Belə ki, Aleksin şiddətinin mərkəzində var olma problemi durur. Müasir dövlətin insanı alçaltdığı və azadlığını əlindən aldığı bu şəraitdə Bercess Aleksi var olan bu sistemə qarşı bir üsyan olaraq yaratmışdır.

**TƏDQİQAT METODLARI**

Tezis bir neçə mənbələrə əsaslanaraq, müxtəlif növ məqalə və materiallardan faydalanaraq araşdırılıb yazılmışdır. Tezis yazıldığı müddətdə psixoloji və tarixi metodlardan geniş şəkildə istifadə olunmuşdur. Şiddət və zorakılığın insanlar üzərində təsiri, yazıçının fərdi yanaşma tərzi və cəmiyyətin düşüncə forması psixoloji metod vasiləsilə araşdırılmışdır. Həmin dövrün tarixi, siyasi, sosial və mədəni vəziyyəti və dövlətin idarəedilmə prinsipləri kimi məsələlər isə tarixi metodun köməkliyi ilə tədqiq edilmişdir.

**NƏTİCƏ**

Nəticə olaraq, Entoni Bercessin "Qurulan Portağal" romanı insan təbiətinin qarışıqlığını, azad iradənin yox edilməsinin həm fərd, həm də cəmiyyət baxımından yarada biləcəyi təhlükələri ətraflı şəkildə özündə əks etdirən təsiredici bir əsərdir. Bu roman nəşr olunduğu dövrdə ciddi münaqişələrə səbəb oldu və senzuraya məruz qaldı. Çünki Bercess cəmiyyətin və iqtidarın əsl üzünü ustalıqla göstərmiş və fərdin daxili problemlərini ortaya qoyaraq mövcud olan qayda qanunların yenidən gözdən keçirilməsinin vacibliyini vurğulamışdı. Bütün bu məsələlər "Qurulan Portağal" romanını ədəbiyyat dünyasında önəmli bir yerə gətirmiş və Bercessin dünyəvi şöhrət qazanmasına səbəb olmuşdur.

**İSTİNADLAR**

1. Moya, S. "A Clockwork Orange: The Intersection between a Dystopia and Human Nature".
2. Davis Todd, F. & Womack, K. (2002). Oh my brothers: Reading the anti-ethics of the pseudo-family in Anthony Burgess`s A clockwork Orange.
3. Claey, G. & Sargent, L. T. , (1999). "Introduction. The utopia reader". , New York, New York UP.
4. https://www.newyorker.com/magazine/2012/06/04/the-clockwork-condition (14.02.2024)

# ŞƏXSİYYƏTİN DEKONSTRUKSİYASI: COYS KEROL OUTSUN "DÖYMƏLİ QIZ" ƏSƏRİNDƏ "ÖZGƏ" KONSEPTİ

**ƏLİYEVA GÜNAY TELMAN QIZI**
Azərbaycan Dillər Universiteti
Xarici Ölkələr Ədəbiyyatı/Dünya Ədəbiyyatı
gny.aliyeva@adu.edu.az
BAKI, AZƏRBAYCAN

**XÜLASƏ**

Bu tədqiqat işinin məqsədi Coys Kerol Outsun "Döyməli qız" romanındakı şəxsiyyət mövzusunun hərtərəfli tədqiqinə və xüsusi olaraq "Özgə" konsepsiyasının araşdırılmasına yönəlmişdir. Bu məqalə, əsərdəki obrazların şəxsiyyət böhranını hərtərəfli təhlil edir, personajların öz ekzistensial dilemmaları ilə necə mübarizə apardıqlarını və ictimai təzyiqlər arasında öz kimliklərini necə formalaşdırmağa çalışdıqlarını araşdırır. Tədqiqatın aktuallığı ədəbiyyat sahəsində mədəni və sosial kimlik haqqında daha geniş müzakirələrə səbəb olacaq və şəxsiyyət mövzusunu daha dərindən anlamağa töhvə verəcəkdir. Outs öz romanında şəxsiyyətin konstruksiyasının nüanslarını və "Özgəlik" təsvirini üzə çıxarmaqla, müasir ədəbiyyatda yad insan obrazlarının daxili vəziyyəti və öz müqəddəratını təyin etmək üçün daima axtarışda olduqlarını vurğulayır. C.K.Outsun "Döyməli qız" romanının dərin təhlili, şəxsiyyətin dinamikasının müasir cəmiyyətdə konstruksiyasının incəliklərinə dair fikirlər təqdim edir və həmçinin şəxsiyyət, ədəbiyyat və mədəniyyətin interseksiyası ilə maraqlanan oxucular və alimlər üçün həm nəzəri anlayışlar, həm də praktiki nəticələr təqdim edir.

**AÇAR SÖZLƏR. Şəxsiyyət, Özgə, Döyməli qız, Coys Kerol Outs.**

**DECONSTRUCTION OF IDENTITY: THE CONCEPT OF "THE OTHER" IN JOYCE CAROL OATES'S "THE TATTOOED GIRL."**

**ABSTRACT**

The purpose of this thesis is to comprehensively analyze the theme of identity in Joyce Carol Oates' novel "The Tattooed Girl" and specifically explore the concept of the Other. This article carefully analyzes the identity crises of the characters in the work, exploring how the characters struggle with their existential dilemmas and try to form their own identities in the face of societal pressures. The relevance of the study will lead to a broader discussion of cultural and social identity in the field of literature and will contribute to a deeper understanding of the topic of identity. By exploring the nuances of identity construction and the depiction of "Otherness" in her novel, Oates highlights the constant search for the inner state and self-determination of alien characters in modern literature. An in-depth analysis of J. C. Oates' novel "The Tattooed Girl" provides insight into the intricacies of constructing identity dynamics in contemporary society, and provides both theoretical insights and practical implications for readers and scholars interested in the intersection of identity, literature, and culture.

**KEY WORDS.** Identity, The Other, The Tattooed Girl, Joyce Carol Oates

## GİRİŞ

Coys Kerol Outs, zəngin yaradıcılığı və kəskin sosial müşahidəsi ilə tanınan məşhur Amerika yazıçısıdır. XX əsrin ikinci yarısı və XXI əsrin əvvəllərini əhatə edən ədəbi karyerası ABŞ-ın tarixini və sosial reallığını əks etdirir. Amerika cəmiyyətinin müxtəlif tarixi kontekstlərdə öyrənilməsi Outsun ədəbi əsərlərində ardıcıl olaraq qarşıya qoyulmuş əsas məqsədlərdən biridir. Özünü Amerika salnaməçisi hesab edən yazıçı, müxtəlif dövrlərdə sosial problemlər və Amerika cəmiyyətinin qaranlıq tərəflərini ifşa etməkdən çəkinməmişdir.

1990-cı illərin əvvəllərindən etibarən Outsun bədii əsərlərində şəxsiyyət və etnik mənsubiyyət məsələlərinə artan maraq özünü biruzə verirdi. Onun romanları Amerika cəmiyyətində şəxsiyyətin qurulması yollarını araşdırmaqla yanaşı irqi ayrı-seçkiliyin və qərəzliliyin acı reallığını ifşa edirdi. Outsun "Döyməli qız" (2003) əsəri Amerikada "Ağ fəhlə sinfi" adlandırırlan marjinal yoxsul ağdərili qrup və imtiyazlı yəhudilər arasında irqi və sinfi münaqişələrdən bəhs edir. Bu əsərlə Outs diqqəti

Amerika cəmiyyətində "Özgə" sayılan elit yəhudi yazıçı Coşua və Amerikanın aşağı təbəqəsindən olan Dmitri və anti-semit Almaya yönəldir.

Bəzi alimlər artıq Outsun "Döyməli qız" əsərini müxtəlif rakurslardan müzakirə etsələr də romanla bağlı əhəmiyyətli tədqiqatlar azdır. Romanın faciəli sonluğunu təhlil edərək bir birinə "Yad" olan üç əsas personajının ictimai mühitdə şəxsiyyət böhranı ilə necə mübarizə apardıqlarını bu tezisdə müzakirə edəcəyik.

**Coşua Sayql. Amerika mühitində Yəhudi Kimliyi.**

Yəhudilik mürəkkəb bir termindir və onun mahiyyətinin ortaq bir din, etnik mənsubiyyət və ya başqa olması geniş müzakirə olunur. Jan-Pol Sartr yəhudi kimliyinin müəyyən edilməsində "Özgə" nin rolunu vurğulayırdı:

*Bəs yəhudi icmasına, birlik olmalarını qoruyub saxlamaqda nə kömək edir? [...] İsrail oğullarını birləşdirən keçmişi, dinləri və torpaqları deyil. Onların ortaq bir cəhəti varsa hamısının yəhudi adını daşıması, və onları yəhudi kimi qəbul edən bir cəmiyyətdə yaşamalarıdır (Sartre, 1970).*

Sartr yəhudilərin yəhudi cismi, ruhu, dini və ya mədəniyyəti olmadıqlarını iddia edirdi: "Yəhudi başqalarının yəhudi hesab etdiyi kəsdir" (Sartre, 1970). Bu baxımdan, Coşua başqalarının qərəzli təsəvvüründə yəhudi idi. Yəhudi olmağın nə demək olduğu sualına artıq Outsun əsərlərində məsələn, "Sarışın" romanında toxunulmuşdur. Romandakı personajlardan biri də öz yəhudiliyini Sartrın təyin etdiyi kimi, başqalarının ona verdiyi şəxsiyyət kimi qəbul edən yəhudi dramaturqu Artur Millerdir. Yəhudilik tarixən insanların özlərini əslində kim olaraq tanıdıqları ilə bağlı deyil, digər insanlar tərəfindən necə qəbul olunduqları ilə əlaqəlidir. Yəni, birini yəhudi olaraq təyin edən "Özgə"sidir.

C.K.Outs "Döyməli Qız əsəri ilə hörmətli, lakin təkəbbürlü bir yazıçı olan Coşua və onun şəxsiyyət böhranına necə düşdüyünü, tərcümə və yazı vasitəsilə necə yeni şəxsiyyət yaratmağa çalışdığını təsvir edir. Coşua bir çox aspektlərdə şəxsiyyət böhranı ilə üzləşirdi. Bir amerikalı kimi o, "temperamentinə görə avropalı"olduğuna inanırdı; bir yazıçı kimi; təbiətcə filosof olduğunu güman edirdi (Outs, 2004). Onun ən böyük çaşqınlığı yəhudi kimliyindən qaynaqlanırdı. Stüart Holl şəxsiyyətin "sosioloji subyekt" kimi müasir dünyada "özü ilə cəmiyyət arasında qarşılıqlı əlaqədə" formalaşdığını müəyyən etmişdir (Hall, 1996). Bu yolla "daxili" ilə "xarici", şəxsi dünya ilə ictimai dünya, "Mən" və "Özgəsi" arasındakı uçurum aradan qaldırılır.

Bir tərəfdən, Coşua yəhudi kimi tanınırdı və bu identikliyi izah edən bir neçə səbəb var idi. O, varlı bir yəhudi ailəsində dünyaya gəlib, yəhudi mədəniyyəti və dini əhəmiyyəti daşıyan bir ad "Joshua Moses Seigl" adını almışdır. Bundan əlavə, Coşua *Holokostdan* sağ çıxanların qondarma xatirələri olan "Kölgələr" adlı kitabı ilə məşhurlaşmışdı. Bu səbəbdən, hər kəs Coşuanın yəhudi olduğuna inanırdı.

Digər tərəfdən, Coşua yəhudi kimliyini özünə yad hiss edirdi və özünü əsl yəhudi hesab etməkdə çətinlik çəkirdi. Əslində, anası deyil, məhz atası yəhudi olduğundan, Coşua qan bağına görə yəhudi hesab olunurdu. Yəhudi inancına görə, bir şəxsin doğuşdan yəhudi olması üçün anasının yəhudi olması lazımdır. Coşua xristian kilsəsində *vəftiz (xaç suyuna salınma)* olunduğu üçün bir daha dini dəyişdirib yəhudi olmaq istəmədi. O, öz yəhudi keçmişinin təsirini görməməzliyə vurmağa çalışırdı, özünü yəhudi olaraq tanımaq istəmirdi. Hətta o, açıq şəkildə bəyan etmişdi: "Mən əcdadlarım deyiləm... Mən atam deyiləm, mən heç özüm də deyiləm" (Outs, 2004).

Coşuanın yəhudi kimliyini inkar etməsi bacısı Cetima Sayqlın və Coşuanın köməkçisi olmaq üçün müraciət edən gənc yəhudi tələbə Eslerin yəhudiliyə olan güclü inancı ilə tamamilə ziddiyyət təşkil edirdi. Həm Cet, həm də Esler yəhudi tarixini və ənənəsini öz mirası kimi qəbul edib, Holokostdan sağ qalanların hekayəsini yeni əsrə çatdırmağı öz vəzifə borcları hesab edirdilər. Onlar Coşuaya "Gölgələr"in davamını yazmağı təklif etdilər və bununla "atalarının və xalqının xatirəsini"yaşada biləcəklərinə inanırdılar (Outs, 2004). Coşua "Kölgələr"in davamını yazmaq əvəzinə Virgilin şeirlərini tərcümə etməyə başladı. Çoxsaylı Amerika yəhudiləri kimi, Coşua da Amerika normalarına uyğunlaşmağa və yəhudiliyindən qaçmağa çalışırdı. Onun qaçması təkcə fərdin deyil, həm də yəhudi xalqının şəxsiyyət böhranını əks etdirirdi. Amerika yəhudiləri bir xalq olaraq, Alan Derşoviçin sözləri ilə desək, "assimilyasiya, qarışıq nikahlar və aşağı doğum səbəbindən heç vaxt bu qədər yox olmaq təhlükəsi ilə üzləşməmişdilər." (Dershowitz, 1997). Lakin, bacısı Cetimanın proqnozlaşdırdığı kimi, Coşua taleyindən qaça bilmədi. Yəhudilik də kitabının adı kimi onun ayrılmaz bir kölgəsi oldu. Yəhudi kimi qəbul edildiyi geniş Amerika cəmiyyətində yazıçı və ictimai xadim kimi öz yerini tapmağa çalışarkən ətrafdakı cəmiyyətdən uzaqlaşma və özgələşmə hisslərindən əziyyət çəkdi.

**Dmitrinin Sosial kimlik böhranı.**

"Döyməli qız" əsərində Outs təkcə Coşuanın üzləşdiyi irqi kimlik böhranını deyil, həm də aşağı təbəqədən olan ağdərililərin sosial kimlik böhranını təsvir edir. Gündüzləri tərbiyəli ofisiant, gecələr isə narkotik aludəçisi olan Dmitri öz yoxsul həyatından narahat idi. Coşua obrazından fərqli olaraq o, şəxsiyyətini bərpa etmək üçün dəyişikliyə və zorakılığa əl atdı. Ofisiant kimi Dmitri Amerika sosial iyerarxiyasında işçi mövqeyində idi. Kollec təhsilini yarıda qoyan Dmitrinin həyatı narkotiklərlə tamamilə alt-üst oldu. O, adi "Ağdərili fəhlə sinfi"nə mənsub idi. Bu, Amerikanın aşağı sinifini təsvir etmək üçün alçaldıcı bir termindir. Entoni Harkins yazır ki, bu etiket "iqtisadi, genetik və mədəni yoxsulluq"la üzləşən ağdərililərə aiddir ( Harkins, 2003). Terminin ən erkən istifadəsi 19-cu əsrin əvvəllərinə təsadüf edir. Con Uotersin qeyd etdiyi kimi, "Ağdərili fəhlə sinfi" sadəcə klassifikasiya deyil, həm də bəzi ağ dərililəri ayrı bir cins, özlərinə xas bir irq kimi qeyd edən irqi epitetdir (Newitz, 1997). Dmitri nə qədər ağ olsa da, o, "ağ Amerikalı deyil, ayrı bir irq" hesab olunurdu (Isenberg, 2016).

Yüksək səviyyəli yəhudi elitası olan Coşuanın yanında olarkən onun sərvəti və sosial statusu Dmitriyə özünün aşağı təbəqədən olduğundu xatırladırdı və onun ağdərili fəhlə sinfinə mənsub kimliyini şübhə altına alırdı. Buna görə də Dmitri Coşuaya nifrət edirdi; ona xidmət etməyə, səxavətli bəxşişlərini qəbul etməyə, minnətdar olmağa və onu bəyənməyə nifrət edirdi. O, hətta Coşuanın "üstünlüyünü göstərmək" naminə bəxşiş verdiyini düşünürdü (Outs, 2004). Varlı və yüksək təhsilli Coşua hər cəhətdən Dmitri üçün "Özgə" idi. Dmitri marjinal kasıb statusundan uzaq olmağı arzulayırdı və buna görə də, aid olmadığı bir sosial mühitə "Keçmək"lə yeni bir şəxsiyyət yaratmağa çalışırdı. "Keçmə" "bir şəxsin irqi kimlik, etnik mənsubiyyət, kasta, sosial sinif, cinsi oriyentasiya, cins, din, yaş, əlillik və s. aid olduğu qrupun üzvü deyil, özündən fərqli şəxsiyyət qrupunun və ya kateqoriyasının üzvü kimi qəbul edilmə bacarığıdır" (Renfrow, 2004). Buna görə də, başqa sosial mühitə keçməklə, insan öz fərqli şəxsiyyətlərini kəşf edə bilər. Bu, Dmitrinin nə üçün Coşuaya xidmət edərkən özünü nəzakətli və mehriban göstərdiyinin izahıdır. O, özünü centlmen kimi apararaq sinif fərqini aradan qaldırmağa və onunla Coşua arasındakı uçurumu daraltmağa çalışırdı. Müəyyən mənada o, yeni şəxsiyyət yaratmağa müvəffəq oldu, çünki Coşua tamamilə aldanaraq onu etibarlı və xeyirxah insan kimi qəbul etdi. Üstəlik, Dmitri zorakılıq yolu ilə buna nail oldu.

Zorakılıq Outsun əsərlərində təkrarlanan bir mövzudur. Cutta Muronenin müşahidə etdiyi kimi, "Onun (Outsun) əsərlərindəki zorakılıq personajların nöqteyi-nəzərindən bir çox funksiyaya xidmət edir. Bu, həm ətrafdakı cəmiyyətə reaksiya, həm də onun fərddə yaratdığı məyusluq, həm də sözügedən şəxsin öz şəxsiyyətini qurması üsuludur"(Meuronen, 2012). Samuel Kirubahar həmçinin qeyd edirdi ki, "Outsun personajları imiclərinə qarşı təhdidlər və ya iqtidarsızlıqlarının ifşası ilə üzləşdikdə zorakılığa əl atırlar"(Kirubahar, 2011). Zorakılıq, şübhəsiz ki, hakimiyyət iddiası və daha güclü şəxsiyyət yaratmaq vasitəsidir. Dmitri zorakılığa əl atmaqla iqtidarsızlığa qalib gəldi və yenidən güc və üstünlük əldə etdi. Dmitri üçün zorakılıq özünü təsdiqləmə üsulu və yeni şəxsiyyətin formalaşması üçün bir vasitə idi. Outsun Dmitrinin timsalında "Ağ fəhlə sinfi"nin təsviri Amerika cəmiyyətinin qaranlıq tərəflərini və Birləşmiş Ştatların bənzərsiz virtuoz/fəzilətli və digər xalqlardan tamamilə fərqli olduğuna dair "Amerika eksepsionalizmi" mifini ifşa edir. Bununla da, Outsun Dmitri və onun ağlıq böhranını təsvir etməklə, Amerika cəmiyyətinin ikiüzlülüyünü və aşağı təbəqədən olan insanların mənəvi travmasını ortaya qoyur.

**Antisemitizm. Döyməli qız Alma Buşun hekayəsi**

Outs əsərdə, Alma Buş obrazı ilə şəxsiyyət böhranını və antisemitizm vasitəsilə bu böhrandan qurtulmaq cəhdini də canlandırıb. "Döyməli qız" əsərinin baş qəhrəmanı Alma, onu işəgötürən Coşua Sayqla qarşı antisemit nifrətindən qaynaqlanan, öldürücü intiqam kampaniyası aparan cahil gənc qızdır. Bununla belə, onun antisemitizmi sadəcə pozulmuş şəxsiyyətinin nəticəsi və özünü formalaşdırmağın yolu idi. Mədəniyyət nəzəriyyəçisi və sosioloq Holun iddia etdiyinə görə, "şəxsiyyət bir ixtiradır", fərd və ətraf mühit arasında dialoqda yaranır (Hall, 1996b). Həssas və fiziki cəhətdən cazibədar bir gənc qadın olan Alma romandakı hər iki kişi qəhrəman üçün gözəl, lakin seksual partnyor kimi qəbul edilən, eniqmatik döyməli bədənə sahib bir qadındır. Dmitriyə görə, Alma öz növbəsində onun üçün pul qazana bilən, şəxsiyyəti və hissləri olmayan ruhsuz boş bir bədən idi. Sağ yanağındakı və bədənindəki qəribə döymələr Coşuanı cəlb etdi, çünki Holokost qurbanlarının həbsxana döymələrini xatırladırdı. Kobud döymələr onun dərisinə yapışan hörümçək toru kimi idi. Eithne Farry qeyd etdiyi kimi, Almanın döymələri "çirkindir və görünüşü pozur, sanki

kimsə divara cızma-qara edib. Bunlar onun bədəninə qarşı vandalizm aktlarıdır. Bunlar sənət əsərləri deyil; Alma özü onlara sahib olmaq istəmirdi" (Farry, 2004). Lakin bu çirkin döymələr Coşuanın diqqətini çəkdi və Almanın şəxsiyyətinin simvoluna çevrildi. O, roman boyu əsl adı əvəzinə döyməli qız kimi xatırlandı.

Dmitri Alma üzərində dominant mövqe tuturdu. Dmitri üçün Alma sadəcə zorakılığa və sadizmə məruz qalan dəyərsiz cinsi obyekt idi. Coşuaya gəlincə, ona qarşı mehriban olsa da, Alma, yenə də onu kənar və "Özgə"si hesab edirdi. Coşuanın mehribanlığı qarşısında Almanın onu hələ də "Özgə" hesab etməsi savadsızlığından irəli gəlirdi. Coşuanın köməkçisi kimi Alma onun tərcümə ssenariləri ilə məşğul olmalı idi. Tərcümə mətnlərini oxuyarkən o, onları təhlükəli silah kimi gördü və Coşuanın təhsil üstünlüyünə görə özünü aciz/fərqli hiss etdi. Dmitri kimi Alma da, "ağdərili fəhlə sinfi" nə mənsub kasıb amerikalı idi. Almanın yoxsul təbəqədən olması və savadsızlığı onun dəhşətinə çevrildi, bu da onun şəxsiyyət böhranına səbəb oldu. Bu böhranından qurtulmaq üçün onu işəgötürən Coşuaya qarşı şiddətli antisemit nifrəti bəslədi. Outsun antisemitizmi Amerika cəmiyyətində narahatedici bir faktı ortaya qoyur. Amerikada yəhudilər ümumi əhalinin yalnız kiçik bir hissəsidir və sayca azlıq təşkil etsələr də, onları gözdən salmaq olmaz. Müvəffəqiyyət, təhsil, peşə və siyasi əhəmiyyətlərinə görə ölçülərsə, yəhudilər Amerika cəmiyyətinin bütün sahələrində son dərəcə uğurlu xalqdır. Bəzən uğur təhlükəsizliyə qalib gəlmir. Bu gün də Amerika yəhudiləri geniş yayılmış antisemitizmlə üzləşirlər. 25 noyabr 1998-ci ildə "The New York Times" qəzetində "Hər səkkiz amerikalıdan birinin antisemit hissləri var" adlı bir məqalə dərc edilmişdir (Blakeslee, 2000).

Almanın antisemitist düşüncələrinə gəlincə, o, uşaqlıqdan yəhudilərə nifrətlə böyüyüb. Onun babası yəhudini "alçaq məxluq" adlandırırdı və qeyri-müəyyən şəkildə iddia edirdi ki, Yəhuda Məsihi öldürdüyünə görə yəhudilər "Allah və insan tərəfindən lənətlənmişdir"(Outs, 2004). Sonralar Alma Holokostun XX əsrin ən böyük saxtakarlığı ola biləcəyinə inanan Dmitrinin təsiri altına düşdü. Onun yəhudilərə olan nifrəti şəxsi təcrübələrindən çox, fərziyyə və rəvayətlərə əsaslanırdı. Alma, Coşuanın yəhudiliyi vasitəsilə şəxsiyyətini və sosial sinfini qurmağa çalışaraq antisemitizmi içində böyütdü. O, "ağ fəhlə sinfi"nə mənsub olsa da, ən aşağı mövqe tutsa da, ən azı ağ olduğu üçün yəhudi ilə müqayisədə hansısa şəkildə sosial üstünlüyə malik idi. Sartrın fikrincə, "yəhudiyə alçaq və zərərli bir varlıq kimi yanaşmaq fikri, yoxsul insanların özlərini elitanın bir hissəsi kimi düşünmələrinə imkan verir (Sartre, 1970). Məhz yəhudiyə qarşı çıxmaqla, bu yoxsul ağlar qəfildən özlərini zəngin hesab edir və yəhudilərin şəxsiyyətlərini alçaltmaqla, özlərini onlardan üstün tutmaqla, özlərini paxıl insan vəziyyətinə salırlar.

Coşuaya məhz yəhudi olduğu üçün nifrət etməsi Almanı daha yüksək təbəqəyə aid olub, daha üstün bir şəxsiyyət quracağı illüziyasına inandırdı və bununla da Dmitrinin zorakılığı kimi antisemitizm də Almanı öz müqəddəratını təyin etməkdən daha çox ölümə apardı. Romanın sonunda Coşua ölür, Alma Cet tərəfindən öldürülür və Dmitri isə məğlub olur. Kitabda heç bir obraz şəxsiyyət böhranından çıxa bilmir, bütün hekayədə determinizm çalarları hökm sürür. Bu faciəli sonluq vasitəsilə Outs, həyatın əvvəlcədən təyin olunduğu və insanın taleyindən qaçа bilməyəcəyi sevimli süjet mövzusunu bir daha vurğulayır.

**Nəticə**

Bu tədqiqat işi Azərbaycanın ümummilli lideri, dahi şəxsiyyət Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə həsr olunmuş beynəlxalq konfransın mövzusudur. Konfrans Azərbaycan mədəniyyətini, irsini və intellektual nəailiyyətlərini tərənnüm edən bir tədbir olaraq alimlərin və gənc tədqiqatçıların interdissiplinar dialoqa girməsi ədəbiyyat, mədəniyyət və milli kimliyə aid mövzular üzrə fikir mübadiləsi aparması üçün platforma/zəmin yaradır. Bu məruzə şəxsiyyət dinamikasının universallığını və onların müxtəlif mədəni kontekstlərdə insan təcrübələrini anlamaqda əhəmiyyətini vurğulayır. Unikal yazı bacarığı və heyrətamiz incəliyi ilə Outs müasir Amerika cəmiyyətində kimlik məsələsini araşdırır, etnik nifrət və sinfi təbəqələşmə kimi ideyalara meydan oxuyur. Outs əsərlərində xoşbəxt sona üstünlük vermir və "Döyməli Qız" da istisna deyil. Coys Kerol Outsun yaradıcılığında şəxsiyyət və "Özgə"nin tədqiqi Azərbaycan ədəbiyyatında, xüsusən də ictimai və mədəni transformasiyalar kontekstində daha geniş mövzularla səsləşir. Outs öz romanında şəxsiyyətin mürəkkəbliyi ilə mübarizə apardığı kimi, Azərbaycan ədəbiyyatında da tarix boyu eyni şəkildə etnik nifrət, özgəlik və mədəni kimlik mövzuları öz əksinin tapmışdır. Outsun "Döyməli Qız" əsərindəki şəxsiyyətin tədqiqi ilə Azərbaycan ədəbiyyatında mövcud olan mövzular arasında paralel olaraq, dissertasiya işimin bir fəslində dada dərin tədqiqat aparmaq fikrindəyəm.

**İstifadə edilmiş ədəbiyyat siyahısı**
Blakeslee, Spenser. The Death of American Antisemitism. Library of Congress Cataloging-in-Publication Data, 2000. p. 3
Dershowitz, Alan. The Vanishing American Jew: In Search of Jewish Identity for the Next Century. New York: Little, Brown and Company, 1997. p. 2.
Farry E. "Behind the scenes of The Tattooed Girl". In The Tattooed Girl. Ed. Farry E. London: Harper Perennial, 2004. p. 12.
Hall, Stuart. 1996b. "Minimal Selves." In Black British Cultural Studies: A Reader. Ed. Houston A. Baker, Jr., Manthia Diawara, and Ruth H. Lindeborg, 114-119. Chicago: University of Chicago Press
Hall, Stuart. "The Question of Cultural Identity". In Modernity: An Introduction to Modern Societies. Ed. Stuart Hall, Oxford: Blackwell Publishing Ltd, 1996, p. 587.
Hall, S., & Du Gay, P. (1996). *Questions of Cultural Identity: SAGE Publications*. SAGE.
Harkins, Anthony. Hillbilly: A Cultural History of an American Icon. New York: Oxford University Press, 2003. p. 5, 4.
Isenberg, Nancy. White Trash. London: Atlantic Books, 2016. p. 135, 2, 2.
Kirubahar, Samuel. "Oatesian World of Violence and Female Victimization—An Autopsy". Language in India, 2011 (1 January), p. 112.
Meuronen, Jutta."I am not my father, I am scarcely myself." University of Tampere, 2012. p. 32, 34.
Newitz, Annalee. White Trash: Race and Class in America. New York: Routledge, 1997. p. 2.
Oates, Joyce Carol. The Tattooed Girl. London: Fourth Estate, 2004.p. 49, 259, 49, 119, 138, 67, 23, 35, 62-63, 199, 26-28, 101, 258.
Renfrow, Daniel G. "A Cartography of Passing in Everyday Life," Symbolic Interaction, 2004 Vol. 27, Issue 4, p. 485-506.
Sartre, Jean-Paul. Being and Nothingness: An Essay on Phenomenological Ontology. Transl. George J Becker. New York: Schocken Books, 1970. p. 69, 27.

# ŞƏRQ FƏLSƏFƏSİ GÖRÜŞLƏRİNDƏ ANTİTEZA (YUNUS ƏMRƏ VƏ İMADƏDDİN NƏSİMİ POEZİYASI ƏSASINDA)

**DÜNYA ŞƏMİLOVA MƏRDAN**
Bakı Dövlət Universiteti
Filologiya fakültəsi/ Azərbaycan ədəbiyyatı tarixi kafedrası
dunya.shemilova@icloud.com
Bakı, Azərbaycan

***Xülasə***

Şərq mədəni fikir tarixinin müxtəlif ölkələr üzrə bölünməsi şərti xarakter daşıyır və onlar arasında qırılmaz bağ, əlaqələr mövcuddur. Bu əlaqə özünü Buddizm və Təsəvvüf arasında da göstərir. Təsəvvüf İslam dini və mədəniyyətinin bir parçası olduğu kimi, buddizm də buddist dini və mədəniyyətinin tərkib hissəsidir. İlk başda bu iki fəlsəfi görüş əsaslandıqları dinlərə görə ziddiyyətli görünsə də, nəzərə almaq lazımdır ki, Şərq xalqları arasında olan mədəni əlaqələr onların dünyagörüşlərinə də təsir göstərmişdir. Bütün bu əlaqələrlə yanaşı əks mövqe daşıyan amillər də kifayət qədərdir. Məqalədə Buddizm və Təsəvvüf fəlsəfi görüşlərində mövcuz olan bənzərlik və əlaqələrdən başqa İrfan poeziyası nümayəndələrinin əks mövqedə dayandıqları amillər geniş şərh edilmişdir. İlk növbədə üzlət, zahidlik, bəla və xoşbəxtlik anlayışlarının buddizm, təsəvvüf fəlsəfi görüşlərindəki yeri göstərilir, İrfan poeziyasının məşhur nümayəndələri Yunus Əmrə, İmaddədin Nəsimi əsərləri nümunə göstərilməklə, Qurani-Kərimə istinad edilrək təqdim edilən fikirlər əsaslandırılır.

***Açar sözlər***: zahid, arif, bəla, xoşbəxtlik, poeziya.

***Summary***

The division of the history of eastern cultural ideas into different countries is conditional and there is an unbreakable bond and relationship between them. This connection also shows itself between Buddhism and Sufism. Just as Sufism is a part of Islamic religion and culture, Buddhism is also a part of Buddhist religion and culture. Although at first these two philosophical meetings seem to be contradictory due to the religions they are based on, it is necessary to consider that the cultural relations between the peoples of the East have also influenced their worldviews. However, along with

all the relationships, there are enough opposing factors. In the article, along with the relations between Buddhism and Sufism, the factors against which representatives of Irfan poetry stood in the opposite position were widely interpreted. irst of all, the place of the concepts of beauty, asceticism, trouble and happiness in the philosophical views of Buddhism and Sufism is shown, the works of Yunus Amre, Imaddadin Nasimi, famous representatives of Irfan poetry, are shown as examples, and the presented ideas are justified by referring to the Holy Quran.

***Key words:*** hermit, wise, trouble, happiness, poetry.

**Giriş**

Günümüz insanının real həyatda üzləşdiyi problemlərin, çətinlik və sınaqların yaratdığı ruh halı nəyinki insanın özünün, eləcə də bəşərin mənfi təsirlənməsinə səbəb olur. Bu problemlərin həlli isə Şərq fəlsəfi görüşləri və poeziyasında gizlidir. Şərqdə fəlsəfənin inkişafı tarixi keçmişin ən qədim mərhələlərinə dayanan bir prosesdir. Nəzərə alsaq ki, fəlsəfi dünyagörüşünün formalaşması Qədim Hindistan, Çin, Misir, Babilistan kimi ölkələrlə əlaqələndirilir, deməli fəlsəfə elminin beşiyi Şərqdir. Bu qədər qədim köklərə malik olan bədii-fəlsəfi nümunələr cəmiyyət, insan, insan həyatından və bu həyatın çətinliklərindən bəhs etdiyi üçün bu mənbələrə müraciət zamanın tələbindən irəli gələn mühüm yanaşmadır.

Şərq fəlsəfi fikirlərini və poeziyasını anlamaq üçün isə kamil ruh, kamil zəka mütləqdir. Saydığımız xüsusiyyətlər isə İrfan poeziyasını, Yunus Əmrə və İmadəddin Nəsimi yaradıcılığını səciyyələndirən əsas faktorlardır. Bu səbəblə də həm Şərq fəlsəfəsini, həm də ədəbiyyatı oxucular üçün maraqlı hala gətirməyin ən mühüm yolu oxuculara özlərindən bəhs etmək, axtarışda olduqları ilə bağlı yardım etməkdədir. Axtardığı sualların cavablarını ədəbiyyatda tapan insana anlaşılması qəliz olan məsələ və məfhumların klassik şeir formatındakı izahını vermək gərəkdir. Bu izahlar isə hamı üçün aydın və anlaşıqlı olmalıdır. Bu yolla cəmiyyətə və şəxsinə yadlaşan insanları ədəbiyyat ilə tərbiyə etmək mümkündür. Bu aspektdən yanaşdıqda mövzu istənilən dövr üçün mühüm keyfiyyətə malik olmaqla bərabər, bütün dövrün araşdırmaları və oxucuları üçün aktualdır.

Məqalədə buddizm fonunda insanın real həyatda üzləşdiyi çətinliklərdən təklif edilən xilas yolları araşdırılır. Buddizm fəlsəfəsində xoşbəxtlik axtarışları ilə təsəvvüf ədəbiyyatındakı səadət məfhumu arasındakı bənzərliklərdən söz açılır, adekvat olaraq Yunus Əmrə və İmadəddin Nəsimi poeziyasından göstərilən beytlərlə İrfan dünyasının mövqeyi şərh edilir.

Məqalə xülasə, giriş, əsas hissə, nəticə və ədəbiyyat siyahısından ibarətdir. Xülasədə tətqiqat işinin qısa təhlili aparılır, giriş hissədə mövzunun aktuallığı, tətqiqatda istifadə edilmiş metodlar, bununla yanaşı məqalənin strukturu haqqında məlumat verilir. Nəticədə tətqiqat işinin nəticələri, yekunlar qeyd edilir və müraciət edilmiş elmi mənbələr istifadə edilmiş ədəbiyyat siyahısında göstərilir.

**Tədqiqat metodu**

Qarşıya qoyulan problemlərin şərhində Şərq bədii-fəlsəfi görüşləri əsasında, xüsusi ilə buddizm, Təsəvvüf və İrfani görüşlər arasında müqayisəli-analitik tətqiqat metodu ilə yanaşı induktiv və tarixi metoddan da istifadə edilmişdir.

**Əsas hissə**

Hindistanın cənub-şərqində Qautama ləqəbli Siddharta (Budda) tərəfindən yaradılan, mistik təməllərə əsaslanan buddizm ilk başda fəlsəfi fikir kimi formalaşsa da, sonralar ətrafına toplanan tərəfdarların çoxalması və uzun müddət dövlət və xalqın həm ictimai-siyasi, həm də mədəni həyatında hakim mövqe daşıması ilə dini inanca çevrilmişdir. Buddizmin yaranma tarixi, kahinlərə qoyulan tələblər. buddizmin qayda və qanunları, ayin və mərasimlər haqqında qədim mənbələrdən biri eramızdan əvvəl qələmə alınan "Tipitak" (Üç səbət) əsərində əhatəli danışılmışdır. Qədim hind fəlsəfi fikrinin ilk qədim dövrü vedalar dövrüdür, vedalar isə qədim hind mədəniyyətinin ən mühüm tərkib hissələridir. Sonuncu veda Atharvaveda da mühüm amillər toplanmışdır ki, bunlardan biri də zahidlik məsələsidir. Şərqdə fəlsəfi fikrin inkişafı ilə bağlı apardığı elmi araşdırmalarında Ülviyyə Ağabəyova qeyd edir ki, Vedalar dörd külliyyatdan-samhitlərdən, brahmanlardan, aranyaklardan, upanişadlardan ibarətdir: *"Atharvaveda" da zahidlik məqamına önəm verilir və qeyd edilir ki, zahidlik həyat tərzi dünyanı xilas edəcək, onu dəyişdirəcək və dağılmaqdan qoruyacaq"* (Ağayeva, 2018, səh. 36).

Buddizmin rahib obrazı klassik ədəbiyyatımızın zahid obrazını xatırladır. Həqiqətdən sapmış, yalnız maddi həyatdan imtina edərək və dünyadan təcrid olunmuş şəkildə ibadətlə məşğul olan və

özünün həqq əhli olduğunu düşünən şəxslər zahid, həqiqi həqq aşiqləri isə arif adı ilə xatırlanır. Ariflər, yəni irfan əhli zahid və sufiləri zahiri əlamətlərə aludə olub daxili həqiqəti anlamamaqda günahlandırır. Ariflər və zahidlər arasında ən önəmli fərq budur ki, zahid üzlət, səcdə, səcdəgah, ibadət və razü-niyaza olan göstərişli bağlılığın həqiqətin özü olduğunu düşünür.

İrfan əhlinin həyatına nəzər saldığımız zaman onların bir çoxunun dünyəvi zövqlərdən, maddi nemətlərdən imtina edərək kamilləşməsinin şahidi oluruq. Buddizmdə mövcud olan Nirvana İrfan poeziyasında özünü "kamil insan" konsepsiyasının ideyalarında bənzər tələblərdə göstərir. Yunus Əmrə buyurur:

*Aşiqlərün könli gözi mə'şuq deyə getmiş olur,*

*Ayruq surətdə nə qalur kim qılisər zöhdü taət* (Yunus, 2004, səh. 23).

Şərqin dahi mütəfəkkiri Yunus Əmrə yaradıcılığında da zahidliyin tənqidi motivinə rast gəlmək mükündür. "Zöhd" zamana pəhrizkarlıq, yəni sadəcə ibadətlə məşğul olmaq üçün ayırılan zamandır. Şair bildirir ki, aşiqlərin hər anı Məşuqu xatırlamaqla keçir, bu özü də ibadətdir. Və hər anı ibadətə sərf olunan, hər anı dünyəvilikdən üzlət olan şəxslərin zöhdə ehtiyacı qalmır. Nəsimi buyurur:

*Gəl aşiq isən sidq ilə şol dilbər üçün gəl,*

*Can ilə cahan ortaya qoy, tərki-sər eylə* (Nəsimi, 2004, səh. 42).

Nəsimiyə görə hər kəs aşiq hesab edilə bilməz, bu səbəblə də həqiqi və saxta aşiq ayırımı edir. Həqiqi aşiq həm candan, həm də cahandan Məşuq üçün keçir. Saxta aşiq isə cahandan keçir, lakin candan keçə bilmir. Yunus Əmrə buyurur:

*Nəfs arzusından keçib, eşq qədəhindən içüb,*

*Dost yolına ər kibi turmayan aşiqmidür?* (Yunus, 2004, səh. 31)

Buddizm, Təsəvvüf və İrfan əhlinin üzlətlə bağlı fikirləri bir çox məqamlarda ziddiyyət yaradır. Nəzərə alsaq ki, bəzi sözlərin həm lüğəvi, həm də terminoloji mənası vardır, "zahid", "sufi" sözləri də bu qəbildəndir. Bəzən həqq yolunun yolçusu, din və ibadət əhli kimi təqdim edilən zahid və sufi, bəzən isə sadəcə termin olaraq zahidliyi ifrat hala çatmış şəxs kimi tənqid edilir. İslamda və irfanda ifratçılıq bəyənilməyən haldır. Bəzi məqamlarda buddizmdə də bu hallara rast gəlirik: *"İnsan hələ həyatda ikən düqhədən nicat tapa bilər. Onun üçün özünü cəmiyyətdən ayırmalı, sanqhaya - rahiblər icmasına daxil olmalıdır"* (Nəbiyev, 2013, səh. 63). Könüllü şəkildə monastrlara girən buddistlər 253 qadağa riayət etməyi öhdəsinə götürür, hətta ailələrindən, mülkiyyətlərindən imtina edir, sarı əba geyir, özlərini rahib həyatı sürməyə məhkum edirlər. Təsəvvüf ədəbiyyatında da eyni motiv səsləndirirlir. Lakin irfan əhli həyatdan tamamilə imtina etməyin əleyhinədir. Antik yunan filosofu Aristotelin də söylədiyi kimi, insanlar işgəncə içərisində xoşbəxt yaşaya bilməz.

*Mən xərabati-əzəldən məstü-heyran gəlmişəm,*

*Eşq ilə yükrəng olub şadanü xəndan gəlmişəm* (Nəsimi, 2004, səh. 24).

Eşq üçün şəhid, dərisi soyularaq edam edilən Nəsimi özü də keşməkeşli həyat yolunda çətinliklərə sinə gərirdi, bununla belə yenə də xoşbəxt idi. İlk gündən aşiqlik qisməti olan şair eşqin təsiri ilə "şadanü xəndan", yəni şən, halından məmnundur.

Bu məqamda qeyd etməliyik ki, Buddizm və İrfan üçün xoşbəxtlik də fərqli amillərdir. Buddizm xoşbəxtliyi ötəki dünyada axtarır və müdafiə edir ki, bu dünya həyatı xoşbəxtlik üçün nəzərdə tutulmamışdır. Bu dünyada çəkilən əzab və əziyyət insanı əbədi xoşbəxtliyə aparır. "Bhaqavad-gita" da maddi əzablardan xilas olmağın mənəvi əzablardan xilas olmaq olduğunu təbliğ edir: "*İnsan dünyanın əzablarından yaxa qurtarmaq üçün maddi dünyanın əzablarından xilas olmalı, Mütləq Həqiqəti dərk etməlidir*" (Əliyev, 2005, səh. 23). Buddaya görə həyat özü əzabdır. O, diqqətini dünyəvi əzablara yönəldərək bu əzablardan qurtulmağın yollarını axtarır. Bunun nəticəsi olaraq buddizm fəlsəfəsinin nümayəndələri bütün əzab və əziyyətlərə baxmayaraq sükunət halını kamil insanın əsas xüsusiyyəti adlandırır. Lakin burada dərk etmədən sükunətə sürüklənən insan məcburi səbrin fəsadlarını yaşayır. Bu insan düşünür ki, nə üçün bəlalara dözməli, soğrulamadan və dərk etmədən boyun əyməlidir. Və ya əgər çətinliklə mübarizə aparmaq mümkündürsə, nə üşün sükunəti seçmək lazımdır?

İrfan insanlara dözümlü olmağı məsləhət görərkən tam müti şəkildə, süstlüyü təbliğ etmir. Elə bu səbəblə də mütiliyi müdafiə edənlərə qarşı Yunus Əmrə buyurur:

*Cahil ilə arifin məsəli şuna bənzər,*

*Cahil qatında iman məlum-məchul dəgülmi?* (Yunus, 2004, səh. 128)

Yunus Əmrə aqil insanların imanın mahiyyətini dərk etməsini, elə bu səbəblə iman yolunu tutduğunu bildirir. Lakin zahid cəhalət içində olduğu üçün imanın nədə olduğunu dərk etmir. O inanır, lakin iman sahibi deyildir. Öz cahil inamı səbəbi ilə başqalarına da təsir etməyə çalışır və yanlış yönləndirir.

*Yalançı nəfsi şeytandır, ilahi əqli ruhumdur,*
*Əgər idraki sahibsən, bilirsən mətləbi asan* (Nəsimi, 2004, səh. 292).

İrfan ədəbiyyatında arifin əsas xüsusiyyəti səbirli və dözümlü olmasıdır. Nəsimi buyurur ki, arif təmkin və iradənin mahiyyətini dərk etdiyi üçün baş verənlərə sakit ruhla yanaşmaq onun üçün çətin deyildir. Bu cür insan imkanları çərçivəsində çətinliyə qarşı mübarizə aparır, həlli limitlərini aşdıqda isə səbri seçir.

Təsəvvüf ədəbiyyatında mürid və salik kamilliyə çatmaq üçün Haqq qarşısında imtahan edilir. İmtahandan uğurla çıxmaq üçün isə insanlardan və dünya həyatından uzaqlaşır, xəlvətə çəkilir. Bunun fonunda sufizmdə "xəlvətilik" adlı təriqət yaranmışdır. Xəlvət müddətində dünyəvi ehtiyaclardan- aclıq, yuxusuzluq, nəfsi arzulardan imtina edir, sükut, uzlət, riyazət yolunu seçir. Bu prosses isə çillə adlanır. 40 gün davam edən çillə salikin həqiqətə qovuşmaq yolundakı iradəliliyini göstərir. Burada məqsəd insanın özünə işgəncə verməsi deyildir, əsas hədəf haqq yolunu tutan şəxsin daxili təkamül və həqiqətə qovuşmasıdır. Lakin irfan əhli həyatdan tamamilə imtina etməyin əleyhinədir, çünki hər şey insan üçün yaradılmışdır. Onlar əzab-əziyyətin sevinilməli, həzz alınmalı olduğunu düşünürlər. Çünki kamilliyə can atan insanı inkişaf etdirən bəlalar xoş qarşılanmalıdır:

*Aşiqi-həqbin qılır yarın tamaşasın bu gün,*
*Zahidi-xudbin durubdur qüsseyi-fərda çəkər* (Nəsimi, 2004, səh. 244).

Təhlükələrdən və sınaqlardan qaçmaq həqiqətə qovuşmaq yolu deyildir. İnsan bu çətinliklər arasında nəfsini tərbiyə etməyi bacararsa Həqqə qovuşa bilər. Elə bu səbədəndir ki, ariflər zahidləri tənqid edir və ifratın İslama uyğun olmadığını təbliğ edirlər. İrfan əhlinə görə Tanrının məqsədi qadağalar və ya çətinliklərlə insan həyatını çətinləşdirmək deyildir. Yaradılan hər bir şey insan üçündür. Lakin zatında həvəs hərisliyə meyillilik olan insan bəzən bu nemətlərdən istifadədə həddi aşır və dünya nemətləri onda aludəçilik yaradır. Qədəri bilmək kamil insanın ən başlıca xüsusiyyətlərindəndir.

*Məni mən etmə, ey zahid, güvənmə zikrə, ey sufi,*
*Ki sən məğrurisən zikrə, mənəm müştaq didarə* (Nəsimi, 2004, səh. 44).

Zahirini: əmmaməsini, çuxa və təsbehini dinlə bəzəyərək saatlarla dünyadan təcrid olunaraq ibadətlə məşğul olmasını həqiqətə qovuşmaq deyə anlayan zahid bunlarla qürrələnir. Lakin ariflər sadalanan hər bir amilin sadəcə həqiqətə çatmaqda bir vasitə olduğunu və həqiqətə çatmaq üçün daxili-mənəvi aləmi zənginləşdirməyi əsas bilir. Yəni ariflər Tanrıdan başqa bütün mövcudata tərki-dünyadır:

*Taət qılan uçmağ içün, din tutmayan tamu içün,*
*Ol ikidən dariğ olur, nəyə bənzər bu işarət* (Yunus, 2004, səh. 23).

Zahid isə həyatını maraqlarla, hansısa mənfəəti və xeyiri güdməklə yaşayır. Bu səbəblə də ibadəti və həyatı da mənfəətkar insanlardan fərqlənmir. Dünyəvi aludəçilik dünyəvi, axirət həyatının mükafatları üçün canfəşanlıq isə mənəvi köləlik psixologiyasını formalaşdırır. Zahid ibadətini və öz libaslarını süsləməklə o qədər məşğuldur ki, həqiqətdən ayrı düşdüyünün fərqində deyildir. İrfani fəlsəfi görüşlərin ideya qaynağı olan Qurani-Kərimdə buyrulur: *"Onlar Allahı unutdu, Allah da onlara önların özlərini unutdurdu"* (Qurani-Kərim, 1991). Zahidin ifan aşiqlərindən əsas fərqi müddəi olmasıdır deyən dahi Nəsimi buyurur:

*Can ilə dünyavü üqba hər kim ol tərk etmədi,*
*Müddəidir, sanma kim, ol vara canan istəyə* (Nəsimi, 2004, səh. 49).

İrfanda lovğa insanların uğur (həqiqəti) qazanması mümkün deyildir. Şünki uğur qazanmağın birinci mərhələsi uğursuzluğu dərk etməkdir. Uğursuz olduğunu düşünüən öyrənməyə cəhd edir, səy göstərir və çətinlikləri dərk edərək inkişaf edir. Əgər buddizmdə həyat çətinlikləri və sınaqları əzab-əziyyət olaraq qəbul edilirsə, irfani-sufi görüşlərdə əzab və əziyyət "bəla" adı ilə xatırlanır. Burada "bəla" təhlükə, fəlakət demək deyildir. Ərəb dilindən tərcümədə bu söz "imtahan" deməkdir.

*Yunus, imdi ol dostun cəfasına səbr eylə,*
*Yürəginə eşq odın urmayan aşiqmidür?!* (Yunus, 2004, səh. 31)

İrfani-fəlsəfi görüşlərdə bəlalar Tanrının insana lütfü və Ona çatmasına yardım edən vasitələridir. Qurani-Kərimdə Bəqərə surəsinin 155-ci ayəsində buyrulur: *"Biz sizi bir az qorxu, bir az aclıq, bir az da mal-dövlət, insan və məhsul itkisi ilə sınayırıq. Səbr edənlərə müjdə ver"* (Qurani-Kərim, 1991). Nəsimi buyurur:

*Dərdə müştaq olmayan kimdir ki, dərman istəyə?*
*Qəbləl mövti bilməyən, sən sanma ki, can istəyə* (Nəsimi, 2004, səh. 49).

Aşiqin əsas keyfiyyəti isə "təhəmmül", yəni dözümlü olmasıdır. Təhəmmül başqasından gələn tənəyə dözmək, başqasının yükünə səbr göstərməkdir. "Təhəmmül" sözünün tərkibindəki "həml" sözü "daşımaq" deməkdir. Nəsimi:

*Gerçək muhibbə cövrü-cəfa çünki yar edər,*
*Neyçün cəfadan incinə, qəmdən məlul ola?* (Nəsimi, 2004, səh. 14)

İrfan poeziyasında buddizmdən fərqli olaraq bəladan qurtulmaq yerinə, bəlanın daha da çoxalması arzulanır. Çünki Məşuqdan gələn bəla Aşiqə xoşdur və bu onu qəmləndirmir, şövqünü daha da artırır

*Aşiq bəla yolunda gərək həmul ola,*
*Məşuqədən ona nə gəlirsə, qəbul ola (*Nəsimi, 2004, səh. 14).

Düzgün davranış buddizmdə "dhərmən" adı ilə xatırlanr. "Düqhə" dən, yəni iztirab və narazılıqdan, həmçinin əzab və əiyyətdən qurtulmaq üçün insan can atdığı hər şeyin fani olduğunu anlamalıdır: *"İnsanın həyatda öz "mən"ini təsdiq etmək cəhdi boş və mənasızdır. Düqhədən yalnız o halda can qurtarmaq olar ki, ağıl fərdiliyin tərkib hissəsi olan bədən, hisslər, hərəkətlər, şüur torundan, qarışıqlığından azad olmuş olsun"* (Nəbibəyli, 2013, səh. 60). Bunun üçün də buddist 8 salehlik yolundan keçməlidir. Təsəvvüfdə isə bu 7 mərhələləli kamillik yoludur.

İstənilən halda həm Budda təlimində, həm də Təsəvvüf və İrfanda insanın Həqiqətə, yəni ilkin başlanğıca çatması üçün çaba sərf edilir. Hər üç fəlsəfi görüşə görə insanın dünyaya göndərilməsində məqsəd maddi nemətlərə aludə olmaq və maddi dünyaya bağlanmaq deyildir. Özü sonlu olan insanın sahib olduğu hər şey sonludur. Bu səbəblə də nəcib əxlaqa sahib olan arif, salik və ya buddist ömrünü sonsuz olana qovuşmaq üçün sərf edir.

*Ol dost bəni veribidi,*
*Var bu dünyayı gör dedi.*
*Gəldüm gördüm xoş arayiş,*
*səni sevən qalmaz ana* (Yunus, 2004, səh. 19).

Cahilin ibadəti qorxudan, məqsədli olduğu üçün həyat və onun sınaqları bu şəxs üçün çətin və dözülməzdir. Arif üçün həyatı çətinləşdirən amil isə Rəbbindən, Məşuqdan uzaq qalması, vüsalın gecikməsidir:

*Dünya duracaq yer deyil, ey can, səfər eylə,*
*Aldanma anın halına, andan həzər eylə* (Nəsimi, 2004, səh. 42).

Nəsimi dili ilə şərh etsək, Tanrının unudulduğu, yad edilmədiyi hər yer aşiq üçün cəhənnəm xarakterlidir. Bu dünya Mövlana təbiri ilə Adəmin Haqq dərgahından uzaqlaşdırıldığı, qovulduğu bir yer olduğu üçün aşiqlərə sürgün yeridir. Sürgün yerinin aldadıcı nemətləri də aşiqə tikan kimi batır, onun nəcib ruhunun tələblərini ödəyə bilmir. Bu səbəblə də həqiqi ibadət və zikrə sığınan aşiqlərin hər anı Tanrı üçün sərf olunur. Qısamüddətli varlıq aləmi və onun oyunlarına səbirlə yanaşmaq bu aşiqlərin əsas keyifyyətidir, lakin bu təmkinin özü də Tanrı üçündür.

**Nəticə**

Buddizm və Təsəvvüf fəlsəfi görüşləri özündə qədim tarixi mahiyyəti, Şərq xalqlarının həyata baxış bucağının xüsusi və əhəmiyyətli bir hissəsini təşkil edir. Lakin İrfan və ümumən klassik Şərq, xüsusi ilə klassik Azərbaycan poeziyası da əsrlərin təcrübəsini və poeziya nümayəndələrinin unikal analistik yanaşmalarını özündə birləşdirir. Bu üç aspekti araşdırdıqda mənbəyini müəqəddəs kitabdan götürən İrfan poeziyası və onun nümayəndələrinin fikirlərinin daha məntiqli və əsaslı olduğuna şahid oluruq. Bu səbəblə tətqiqat işində üstünlük irfani görüşlərə verilir.

Əgər buddizm və təsəvvüf insanı zahidlik, çətinliklər, məhrumiyyətlər və bu qadağalardan doğan məcburiyyətlə tərbiyə etməyə çalışırsa, Nəsimi və Yunus Əmrə yaradıcılığından gətirilmiş nümunələrdən də gördüyümüz kimi, İrfan və onun arif şairləri insan azadlığına hörmətlə yanaşır. Onu düşünərək könüllü şəkildə doğru yolu seçməyə dəvət edir. Dünyadan tamamilə imtina etmək yerinə

dünya həyatı və onun nemətlərindən öz ehtiyaclarını norma çərçivəsində sərf etməyi, yaşamaq üçün əldə etməyi, əldə etmək üçün yaşamamağı tələqin edir.

Buddizm və təsəvvüf Qərbin məşhur filosofu Nitsşenin dili ilə desək, digər yaşam dünyasındakı nemətlərə qovuşmaq üçün məqsədli ibadəti və bundan yaranan qul psixologiyasını tələqin edirsə, İrfan hür ibadət və yaşam konsepsiyasını tələqin edir. Bu səbəblə də aparılan tətqiqat işinin nəticəsində irfani yanşmanın digər yanaşmalarla müqayisədə daha ali olduğu qənaətinə gəlmək mümkündür.

Qərbi Avropa fəlsəfəsinin tənqid etdiyi asketik həyat tərzi Şərq fəlsəfəsinin buddizm dini görüşlərində, həmçinin təsəvvüf ədəbiyyatında özünü geniş şəkildə göstərir. Lakin İrfan ədəbiyyatı öz dini-fəlsəfi, bədii-estetik görüşləri ilə həm Qərb, həm də Şərqin yanaşma tərzinə münasibət bildirir, müasir insanın suallarını cavablandırmaqla, ona yaşadığı mənəvi böhrandan çıxış yolları göstərir.

**Ədəbiyyat siyahısı**

1. Ağabəyova, Ü.R. (2018). Qədim dövr Uzaq Şərqdə fəlsəfənin təşəkkülü və inkişafı. Bakı: Bakı Universiteti Nəşriyyatı, 220 s.
2. Babayev, Y.M (2007). Təriqət Ədəbiyyatı: Sufizm, Hürufizm. Bakı: Nurlan, 132 s.
3. Çatterci S. (2014) Datta D. Hind fəlsəfəsinə giriş. (Tərcümə: Məhəmməd Ç.) Bakı, 232 s.
4. Əhədov, A. (1995). Qədim dünya fəlsəfəsi. Bakı: Azərbaycan ensiklopediyası, 200 s.
5. Əhmədov, Y.P. (2014). Fəlsəfə (Dərs vəsaiti). Bakı: B-print, 360 s.
6. Əliyev, R. (2005). Din. Əxlaqa aparan yol. Bakı: İrşad, 2005, 80 s.
7. Fəlsəfə ensiklopedik lüğəti (1997). Bakı: Azərbaycan Ensiklopediyası, 520 s.
8. Qunnar Skirbekk Nils Gilye. (2008). Fəlsəfə tarixi: Müasir dünyanın fəlsəfi qaynaqlarına bir baxış. (Tərcümə: A. Əsədov). Bakı: Zəkioğlu, 584 s.
9. Qurani-Kərim (1991). Tərc. ed. Bünyadov Z., Məmmədəliyev V. Bakı, 800 s.
10. Nağıyev, C. (2004). Qədim Şərq ədəbiyyatı. Bakı: Asiya nəşriyyatı, 545 s.
11. Nəbibəyli Z.İ. (2013). Əxlaqa aparan yol. Bakı: Adiloğlu, 359 s.
12. Nəsimi, İ. (2004). Seçilmiş əsərləri. Bakı: Lider, 336 s.
13. Şükürov, A. (2005). Şərq fəlsəfəsi və filosofları. Bakı: Əbilov, Zeynalov və oğullar, 2005, 668 s.
14. Yunis, Ə. (2004). Əsərləri. Bakı: Öndər nəşriyyatı, 326 s.

**Rəyçi: fil.ü.f.d., dos. Əzizağa Nəcəfzadə**

# KONSEPTUAL METAFORALARIN YARANMASINDA METAFORİK DÜŞÜNCƏNİN ROLU

***MUSTAFAYEVA NƏRMİN KAMİL***
***Azərbaycan Dillər Universiteti***
***narminmustafaeva93@mail.ru***
***BAKI, AZƏRBAYCAN***

**XÜLASƏ**

Metaforik düşüncə abstrakt konseptləri konkret təcrübələr vasitəsilə başa düşmək üçün güclü bir mexanizmdir. Metaforik düşüncə abstrakt konseptlərin daha dərindən anlaşılmasında və mövcud təcrübələi daha abstrakt konseptlərə proyeksiyalayaraq, dərk edilməsində başlıca rol oynayır. Bu koqnitiv proses, təkcə bədii dildə estetikliyin artırılmasına deyil eyni zamanda, gündəlik həyatımızda mövcud olan abstrakt konseptlərin dərk edilməsi üçün lazım olan strukturlaşma sxemlərinin ortaya çıxmasına xidmət edir. Metaforik düşüncə vasitəsilə, biz zaman, məkan, emosiyalar və münasibətlər kimi abstrakt fikirləri maddi və fiziki təcrübələrimiz kimi daha konkret sahələrə proyeksiyalamaqla başa düşürük. Məsələn, "Zaman puldur" metaforası zamanı xərclənə bilən, qoruna bilən və ya ziyan edilə bilən dəyərli bir resurs kimi təsvir edir və bu bizim müxtəlif məzmunlarda fikirlərimizə və davranışlarımıza rəhbərlik edir. Konseptual metaforalar yalnızca dil vasitələri deyil, həm də dünya

görüşümüzü və təsəvvürümüzün inkişafı üçün əsas koqnitiv strukturdur. Konseptual metaforlar, abstrakt konseptlərimizi daha konkret sahələrə xəritələyərək bizim anlayışımızı formalaşdıran kognitiv quruluşlardır. Lakoff və Johnson tərəfindən təqdim edilən bu metaforlar, bizə tanış olan təcrübələrə üzv olaraq kompleks fikirləri başa düşmək imkanı verir. Məsələn, "Mübahisə müharibədir" metaforu, mübahisəni daha fərqli məna kəsb edən müharibə kimi təsvir edir. Bu metaforalar şüuraltı səviyyəsində fəaliyyət göstərərək, dil, idrak və qavrama kimi proseslərə təsir göstərir, kollektiv məna yaratma proseslərini formalaşdırır. Konseptual metaforalar insan düşüncəsi və kommunikasiyasında əhəmiyyətli rol oynayır, insan beynində mövcud olan dünya anlayışını zənginləşdirir.

**SUMMARY**

Metaphorical thinking is a powerful mechanism for grasping abstract concepts through concrete experiences. It plays a key role in understanding abstract concepts more deeply and projecting existing experiences onto abstract concepts. This cognitive process not only enhances aesthetic beauty in language but also facilitates the perception of abstract concepts present in our daily lives by structuring the schemas necessary for understanding. Through metaphorical thinking, we understand abstract concepts such as time, space, emotions, and relationships by projecting them onto more concrete fields based on our material and physical experiences. For example, the metaphor "Time is money" portrays time as a valuable resource that can be spent, saved, or wasted, guiding our thoughts and behaviors in various contexts. Conceptual metaphors are not only linguistic tools but also fundamental cognitive structures that shape our worldview and the development of our imagination. Conceptual metaphors, by mapping our abstract concepts onto more concrete fields, are cognitive constructs that shape our understanding. Introduced by Lakoff and Johnson, these metaphors allow us to understand complex ideas by drawing on familiar experiences. For example, the metaphor "Argument is war" portrays an argument as a war that acquires a different meaning. These metaphors operate at the subconscious level, influencing processes such as language, perception, and comprehension, shaping the processes of collective meaning-making. Conceptual metaphors play a significant role in human thought and communication, enriching our understanding of the world that exists in the human brain.

**AÇAR SÖZLƏR: Metaforik düşüncə, konseptual metafora, strukturlaşdırma.**

**KEY WORDS: Metaphorical thinking, conceptual metaphor, structuring**

**GIRIŞ**

Metaforanın təsviri və onun sxematik mövcudluğunu əks etdirən anlayışını təşkil edən fenomenlər, fəlsəfə, estetika, dilçilik və psixologiya kimi müxtəlif sahələr arasında müzakirələrin mərkəzində olmuşdur. "Metafora" termininin geniş bir tərif sıralaması mövcuddur və bu, həmin analizlərdə hansı ölçülərin nəzərə alındığı ilə və hansı sahənin bu analizləri çərçivələmək üçün istifadə edilməsi ilə bağlıdır. Bəzən "metafora" sözü analogiya, tərcümə, mübadilə, sinekdoxa və metonimiya kimi obrazlı dil proseslərinin bir qrupunu adlandırmaq üçün istifadə olunur. Əksinə, digər ədəbiyyat, bu proseslərin strukturunu və dinamikasını müxtəlifləşdirir.

Sisero De Oratore öz əsərində metaforanı ritorik bir üslub vasitəsi və dilin zərifliklərindən biri kimi təsvir edir, xüsusilə iki söz arasında tapılan oxşarlıqlarda tapıldığını və bir sözün mənasının digər bir sözlə müqayisə və ya bənzətmə edilməsinə imkan verən əməliyyatı kimi göstərir. Metafor, əgər məsuliyyətli şəkildə istifadə edilərsə, gündəlik dilimizə bəzi bənzərliklər əlavə etmək və bədii dilə isə bənzərsizlik qazandırmaq məqsədi daşıyır.[ Gibbs, R. W. (2001)]

Ancaq Aristotel üçün metafora, həqiqətən, başqa bir referentə məxsus olan bir sözün tətbiqi olaraq təsviri deməkdir. Bu, semantik işarələr tərəfindən göstərilən bir ritorik üslub vasitəsidir və poetik dildə fərqli quruluşlar sərgiləyir. Bu, adlandırma səviyyəsində özünü göstərir və bir dil mexanizmi olaraq təyin edilə bilir. Müəllifə görə, bir şeyin adının bir başqa şeyə köçürülməsi dört kateqoriyaya bölünə bilər: mənbə növün hədəf növə köçürülməsi, hədəf növün mənbə növə köçürülməsi, mənbə növün hədəf növdən başqa bir növə köçürülməsi və analogiya vasitəsilə köçürmə.[ Gibbs, R. W. (2001)]

Fəlsəfi və dilçilik təcrübələri əsasında metaforanın təyinatını Aristotelin tərifinə əsaslandırırdılar, xüsusilə də ona görə ki, o, metaforanı daşınan şəxs kateqoriyasında tanımlayırdı. Bu səbəbdən də , metaforanın bir sözün digər bir sözlə əvəz olunması, fərqli məna kəsb edən linqvistik vahidlərin məna

baxımından müqayisəsi, estetik və ritorik məqsədlər üçün iki ideya və ya varlıq arasında müşahidə edilə bilən xüsusiyyətlərin müqayisəsi və ya təsvirinə əsaslanan ümumi bir praktik yanaşma olmuşdur.

Bəzi digər müəlliflər də metaforanın müqayisələrin formulalaşdırılmasına imkan verən bir linqvistik mexanizm kimi anlaşılmalı olduğunu təklif etdilər. Kognitiv psixologiyada hesablanan təmsil paradigmasının baxış bucağına görə, metafora haqqında ortaya qoyulan əsas məsələ, metaforik ifadələrin istehsalı və anlayışının əsasında hansı alqoritmik kognitiv proseslərin olduğunu və bunların pragmatik təfsir prosesləri və semantik strukturlaşdırma prosesləri ilə aralarındakı münasibətin nə olduğunu müəyyənləşdirməkdir. Bu perspektiv, bir söz və ya ifadənin, mövcud olduğu kontekstdə mənası ənənəvi və ya ümumi mənası ilə uyğun gəlməsə də , tərcümə edən tərəfindən anlaşıla bildiyini və ya anlaşılmaz olduğu zaman isə , bu söz və ya ifadənin metaforik ifadə kimi təsnif edilə biləcəyini öyrədir.

Metaforada, bu və ya digər təcrübə onun kognitiv təsirində əsas rol oynar. Qurulmuş vəziyyət modeli, metaforanı təsnif etmək üçün məzmun yaradır. Bu fikir, bütün tədqiqat işi boyu ətraflı izah olunacaqdır. Bu izahın ilk mərhələsi metaforanın mümkün effektinin nə olabiləcəyini təyin etməkdir. Lakoff və Johnson'ın "Metaphors We Live By" adlı əsərində, onlar dilə baxaraq metaforik baxımdan strukturlaşdırılmış konseptual sistemlərimizin meydana çıxması faktını sübuta yetirirlər. Onlar, dilin bizim konseptual sistemimizin bir məhsulu olduğunu düşünür və bu səbəbdən dili, bu sistemin necə olduğu haqqında əsaslı sübutların əhəmiyyətli bir mənbəyi olaraq görürlər.[ Lakoff, G., & Johnson, M. L. (1980/2003)]

Lakoff və Johnson gündəlik həyatın bir çox elementi haqqında gerçəktən metaforik düşündüyümüzü göstərmək üçün gündəlik istifadə etdiyimiz dil nümunələrindən misallar gətirirlər. Əlavə olaraq, onlar bu düşünmə üslubunun günlük hərəkətlərimizə təsir etdiyini iddia edirlər. Lakoff və Johnson, bu hərəkətləri və günlük davranışları konseptual sistemimizin necə olduğuna dair əlavə sübutlar kimi götürür və nöqtələrini aydınlaşdırmaq üçün bir neçə konseptual metafora nümunələrini qlobal metafora və metonimiyalara reprezentasiya olunduğunu iddia edirlər. “ Həyat səyahətdir”( “Life is journey”), “Qarşılıqlı münaqişə müharibədir” (“Argument is war”), “Zaman puldur” (“ Time is money”) konseptual metaforaları və onların qlobal metafora və ya metonimiyalarla reprezentasiyaları bu fikrə aid hesab edilən nümunələrdən sayıla bilər. [Lakoff, G., & Johnson, M. L. (1980/2003)]

Tədqiqat işində, "Qarşılıqlı münaqişə müharibədir" konseptual metaforası koqnitiv baxımdan qiymətləndirirləcəkdir. Buna həmin konseptual metaforanın sübutu kimi göstərilə bilən bir neçə gündəlik ifadəni misal göstərmək olar və bu nümunələr münaqişələrimizi necə düşündüyümüzün əslində, bu konseptual metaforanın nəticələri olduğunu əks etdirir. Bütün bunlar, konseptual metaforanın düşünməmizə necə sistematik şəkildə təsir etdiyini və müəyyən hərəkətlər və davranışlara səbəb olduğunu sübut edir. Qarşılıqlı münaqişə müharibədir metaforasının reprezentasiyaları insan beynində əslində göstərilən sxemlə özünü əks etdirir: Biz münaqişəyə sadəcə döyüş kimi yanaşmırıq. Həqiqətən də münaqişələri qazana və ya uduza bilərik. Münaqişə etdiyimiz şəxsi bir tərəf müqabili kimi görürük. Onun mövqelərinə hücum edirik və öz mövqelərimizi müəyyənləşdiririk. Qazanır və ya itiririk. Ərazini tutur və ya itiririk. Planlar hazırlayır və strategiyalardan istifadə edirik. Əgər bir mövqenin müdafiə olunmaz olduğunu görərsək, onu tərk edib yeni bir hücum xətti tuta bilərik. Münaqişə zamanı etdiyimiz bir çox şey, qarşıdurmanın konsepti tərəfindən nəzəri olaraq strukturlaşdırılır. Fiziki bir döyüş olmasa da, lüğət döyüşü var və bir münaqişənin strukturu - hücum, müdafiə, əks-hücum, qarşıdurma və s. məhz bunu əks etdirir. Metaforalar dünyanın bilik səviyyəsini bir ölçüyə qədər strukturlaşdırmaq və dəyişdirmək səlahiyyətindədir.[ Pragglejaz Group (2007).]

**TƏDQIQAT METODU**

Tədqiqat işinin metodoloji bazası Müasir Metafora Nəzəriyyəsinə dair xarici alimlərin əsərləri üzərində qurulmuşdur. Araşdırmada mətn tədqiqatının kontekstual metodlarından geniş istifadə olunmuşdur. Bundan əlavə, mövcud nəzəriyyə ilə bağlı müxtəlif müəlliflərin fikirlərinin əks olunduğu materialların toplanması, seçilməsi və sinifləndirilməsi metodlarından istifadə olunması da tədqiqat işinin elmi cəhətdən diqqətəlayiq olmasını sübut edir.

**NƏTICƏ**

Bu məqalənin məqsədi metaforanın təbiəti haqqında mövcud ədəbiyyatlarda özünü əks etdirən ziddiyyətli fikirləri açıqlamaq deyildir. Nəticə etibarilə, tədqiqat işində özünü əks etdirən fikirlərdən və həmin fikirlərə aid göstərilən nümünələrdən bu nəticəyə gəlmək olar ki, konseptual metaforaların

yaranmasında metaforik düşüncə və metaforik struklaşdırma texnikasının rolu böyükdür. Münaqişə müharibədir konseptual metaforasının formalaşmasında əhəmiyyətli rol oynayan sxemlərin necə strukturlaşması və bu strukturların meydana gəlməsində metaforik düşüncənin qaçılmaz rolunun olması, həm də həmin konseptual metaforanın hansı birləşmələrlə ifadə olunması da tədqiqat işində öz əksini tapmışdır.

**ƏDƏBIYYAT SIYAHISI**

1. Gibbs, R. W. (2001). Evaluating contemporary models of figurative language understanding. Metaphor and Symbol, 16(3), 317–333. doi:10.1080/10926488.2001.9678900.

2. Gibbs, R. W. (Ed.) (2008). The Cambridge handbook of metaphor and thought. New York: Cambridge University Press.

3. Kövecses, Z. (2010). Metaphor. A practical introduction. New York: Oxford University Press.

4. Kövecses, Z. (2015). Where metaphors come from: reconsidering context in metaphor. Oxford / New York: Oxford University Press.

5. Lakoff, G., & Johnson, M. L. (1980/2003). Metaphors we live by. Chicago: University of Chicago Press.

6. Pragglejaz Group (2007). MIP: a method for identifying metaphorically used words in discourse. Metaphor and Symbol, 22, 1–39. doi:10.1080/10926480709336752.

# R.AKUTAQAVANIN ƏDƏBI DÜNYAGÖRÜŞÜ VƏ NOVELLISTIKASI

**KAMIL ƏLIYEV**
BAKI DÖVLƏT UNIVERSITETI
FILOLOGIYA/DÜNYA ƏDƏBIYYATI
ka643653662@gmail.com
Bakı, Azərbaycan

**Xülasə**

Bu tədqiqat işində xx əsr yapon ədəbiyyatının dahisi hesab olunan Akutaqava Rünoskenin ədəbi dünyagörüşü və novellistikası barədə məlumat öz əksini tapmışdır. Bunun üçün onun əsərləri üzərində aparılmış təhlillər əsasında iş hazırlanmışdır. Uzaq şərq ədəbiyyatı diqqətdən çox vaxt kənarda qaldığı və dərin araşdırma aparılmadığından tədqiqat işi aktuallıq kəsb edir. Burada əsas məqsəd yazıçının yapon və dünya ədəbiyyatında mövqeyi, özünəməxsus üslubu və yaradıcılığının təhlili olmuşdur. İndiyə kimi Akutaqava yaradıcılığı ilə bağlı hər hansı ciddi araşdırma aparılmadığından və yazıçı tam şəkildə araşdırılmadığından mövcud tədqiqat işi elmi innovativliyə malikdir. Tədqiqat işinin əsas cəhətlərindın biri odur ki, dissertasiyaların yazılması, elmi tədqiqat və araşdırmaların aparılması, əlavə olaraq, mühazirə və seminarların təşkilində istifadə oluna bilər. Nəticə olaraq, tədqiqat işi müəllif yaradıcılığının hərtərəfli araşdırmasını və onun təhlilini əhatə edir.

**Açar sözlər:** Akutaqava Rünoske, Novella, Yapon ədəbiyyatı, ədəbiyyat

**Summary**

In this research work, information about the literary outlook and novelistics of Akutagawa Ryunosuke, who is considered the genius of 20th century Japanese literature, is reflected. For this, the work was prepared based on the analysis of his works. The research work is relevant because the literature of the Far East is often neglected and not deeply researched. Here, the main goal was to analyze the position of the writer in Japanese and world literature, his unique style and creativity. Since there has not been any serious research on Akutagawa's work until now and the writer has not

been fully investigated, the present research has a scientific innovativeness. One of the main aspects of research work is that it can be used in writing dissertations, conducting scientific research and research, in addition to organizing lectures and seminars. As a result, the research paper includes a comprehensive study of the author's creativity and its analysis.

**Keywords:** Akutagawa Ryunosuke, novella, japanese literature, literature

**Giriş.** Tədqiqat işinin əsas mahiyyəti, məqsəd və vəzifəsi yapon ədəbiyyatının dünya şöhrətli yazışısı Akutaqava Rünoskenin novellaları və əsərlərində müəllifin dünyagörüşünün təhlilidir. Azərbaycan ədəbiyyatında,ümumən, Akutaqava, eləcə də yapon ədəbiyyat çox da diqqət mərkəzində olmadığından bu mövzularla əlaqəli çoxsaylı material və araşdırma yoxdur. Buna görə də, mövzu ilə əlaqəli materiallara ciddi ehtiyac duyulur. Mövcud tədqiqat işində bu məsələyə toxunulmuş, Akutaqava yaradıcılığı, xüsusən də, novellaları və onların təhlili ciddi əhəmiyyət daşıyır. İndiyə kimi bu mövzularda bir neçə məqalə və bir monoqrafiya yazılmışdır. Bu araşdırma, kitab və məqalələr də hal-hazırda yaşanan ehtiyacları ödəməyə fokuslanmışdır.

Akutaqava yaradıcılığı 3 mərhələyə bölünür. 1919-cu ilə qədərki dövr, 1919-1923 və 1923-1927-ci illər Belə ki, əgər onun dünyagörüşü və novellistikası barədə danışırıqsa, bilməliyik ki, bu, onun həyatı ilə birbaşa əlaqəlidir. Çünki onun yaradıcılığı ilə həyatı heç bir yazıçıda olmadığı qədər əlaqəlidir. Yaradıcılığının böyük bir qism avtobioqrafik səciyyə daşıyır və beləliklə, bu fikri çürütməyə bu müddəa kifayətdir.

Onun yaradıcılığının ilk mərhələsi 1919-cu iləqədərki dövrü əhatə edir. Müəllifin bu dövr yaradıcılığına baxdığımız zaman daha çox yapon orta əsrlər ədəbiyyatı və folklorundan bəhrələnmiş, mifologiyaya çox müraciət etmişdir. Eyni zamanda bu dövrü axtarışlar dövrü də adlandırılır. Belə ki, "Qocalıq", "Rasyomon darvazası", "Kappa" kimi əsərləri bu dövrdə yazmışdır. Bəhs etdiyimiz dönəmdə müəllif tipik yapon kəndlisinin həyatını əsərlərində təsvir etməyə çalışmışdır. Həmçinin, insanı əzən, onu maddi-mənəvi, zehni, idraki və s cəhətdən sıxan cəmiyyət və onun problemlərini, iç üzünü, əks etdirir. Lakin, təəssüf ki, bunların səbəbini, cəmiyyətin niyə bu hala düşdüyünü göstərə də bilmir və ya sadəcə göstərmir. Buna əsasən də Akutaqavanın yaradıcılığının 1919-cu ilə qədər olan mərhələsini "Axtarışlar" dövrü də adlandırıldığını görürük. Belə ki, "ədəbiyyat milli, yoxsa xarici mənbələrdən, daha dəqiq desək, qeyri-Yapon mənbələrdən təsirlənməli və ya ondan təqlid etməlidir?" kimi iki ziddiyətli suallar ərəfəsində ədəbiyyat meydanına daxil olmuşdu. Akutaqava haqqında hər zaman çox xüsusi diqqətlə dayanırıq. O, yeni yapon ədəbiyyatının ilk nəfəsi, ilk açan çiçəyidir. Belə ki, hər hansı fikri rədd etsə, qarşı fikri özünə "düşmən" edə bilərdi, amma o, hər iki sualı çulğaşdırmaqla tamamilə yeni bir üslub, bir cərəyan, ideya formalaşdırdı. Buna yol da demək olar, Akutaqavanın yolu. Cəmi 35 il ömür sürən Akutaqava 150-ə yaxın novella və qısa hekayə yazıb yaratmışdı. Hardasa, bütün əsərlərində isə onun özünü görmək olar.

Bildiyimiz kimi həmin dövr Yapon ədəbiyyatı üçün xüsusi bir dönəm idi. Belə ki, klassik ədəbiyyat ənənəsi olan aritokrat və samuray təbəqəsinə müraciət artıq itməyə, hətta ən patriot və ya "öz qabığından çıxmaq istəməyən" yazıçılarda belə qərbə doğru bir meyl var idi və Akutaqava məhz bu dəyişikliyin ən böyük təmsilçilərindən birinə çevrilmişdi. Artıq Yapon yazıçılar ali təbəqəni bir kənara qoyaraq cəmiyyət içində itib-batmış "fərdi" tapmağa və ortaya çıxarmağa başladılar. Yapon ədəbiyyat tarixi kitabının müəllifi Şuici Kato yazırdı ki, Akutaqava sələflərindən fərqli olaraq heç vaxt qərbə getməsə də, qərb mədəniyyəti və düşüncə tərzini öz əsərlərində tam dəqiqliklə ifadə edən ilk yapon yazıçıdır.(Kato, ) Dünyagörüşünə isə dünya ədəbiyyatının dahiləri sayılan Dostoyevski, Tolstoy, Bodler və bu kimi yazıçıların ciddi təsir etdiyinin şahidi oluruq. Özü də "Səfehin həyatı" əsərində bu barədə yazır: "İyirmi yaşlı bir gənc kitab rəflərinin qarşısında Avropasayağı nərdivana dırmaşıb kitabları bir-bir gözdən keçirirdi: Strindberq, Mopassan, Bodler, İbsen, Şou, Tolstoy. Hava qaralmağa davam edirdi, amma o, maraqla kitab cildlərindəki yazıları oxumağa davam edirdi. Onun qarşısında sanki kitablardan daha çox, "əsrin sonu" dayanmışdı. (Ramizoğlu, 2006)

Akutaqava ilə ən çox müqayisə edilən yazıçılar siyahısına daxil olan Haruki Murakami ilə də ciddi fərqləri var. Belə ki, Akutaqava bütün dünya sivilixasiyasını özündən keçirib "yaponlaşdırmağı", yapon mədəniyyəti içində əritməyi bacarırdısa, Murakami isə tam əksinə, Yapon ədəbiyyatına məxsus hər bir şeyi öz mahiyyətindən "qoparmağa", əbədi yapon ruhunu bugükü dünya sivilizasiyasında əritməyə çalışır. Düşünsək ki, bu iki dünyagörüşü arasında nə qədər fərq var və Murakami Akutaqava

ilə yazıb-yaratma dövrünə görə yer dəyişdirsəydi, məncə, bu, faciə olardı və bəlkə də Yapon ədəbiyyatı bugünkü səviyyəsinə gəlib çatmazdı.

Yaponiya deyəndə yada Akutaqava, Kenzaburo Oe, Kobe Abe, Yukio Misima, Kenzi Maruyama düşür. (İlham,2010) Əsas məsələ odur ki, məhz Akutaqavanın adı həmişə ilk sıralarda çəkilir. Çünki, O, Yaponiyanın keçmişini əks etdirir, bu gününün qurucularından biridir və gələcəyə təkan verməklə bərabər ona çox ümidlidir.

Yaradıcılığının ilk dövründə onun novellistikasına baxdığımız zaman klassik yapon ədəbiyyatına müraciət edir ki, həmin mövzularda insanın daxili aləminə xüsusi diqqət yetirmiş, eqoizm motivi güclü şəkildə işlənmişdir. İtmiş, yoxa çıxmış insanlıq və insani məziyyətlər vurğulanır. Eqoizm, yalan, şər insanlığı əhatə edib. İnsanlar yalana, şərə o qədər bulaşıb ki, heç kim bir-birinə güvənmir. Bu qarışıqlıq həyatı cəhənnəmə çevirib və cəmiyyəti tənəzzülə sürükləyir. "Rasyomon" və "Burun" əsərləri buna misal ola bilər və bu əsərlər tarixi əhəmiyyət daşıyır. Onun yaradıcılığının ikinci mərhələsində isə daha həyatla ədəbiyyatın bir-birilə nə qədər vəhdətdə və ya ziddiyətdə olması, digər tərəfdən "sənət üçün sənət" anlayışları üzərində çalışmışdır. Yaradıcılığının zirvəsində, yəni 1924-1927-ci illərdə isə sadəcə həyat və ölüm anlayışları, həyat sevgisi, intihar istəyi, ölümün ən sadə "xilas yolu" olması, bununla belə intiharı pisləməsi kimi məsələlər əsas yer tutmuşdur. Müəllifin dünya şöhrəti qazanmış "Kappa" əsəri də bu dövrün məhsuludur və onun bütün düşüncələrinin ifadəçisinə, daxili aləmindən xəbər verən vasitəyə çevrilir. (Erdemir, 2013)

Məqalədə tanınmış yapon yazıçısı Akutaqava Ryunosukenin əsərlərindəki mənzərə təsvirlərində rəng simvolizmindən bəhs edilir. Landşaft hərəkətin yerini ifadə edə bilər, müəyyən emosional atmosfer yarada bilər və ya personajların psixoloji xarakteristikasının əhəmiyyətli bir komponenti ola bilər. Məşhur "Spinning Gears" hekayəsində müəllif onu bezdirən bəzi rəngləri qeyd edir. Məsələn, qara rəng ona Dantenin cəhənnəmindəki günahkarların ruhuna bənzəyir. Akutaqavanın rəng qavrayışı onun psixi xəstəliyi nəticəsində kifayət qədər ağrılıdır. Onun "Dəniz kənarında" novellasında əsas personajların daxili vəziyyətini və əhval-ruhiyyəsini təsvir etmək üçün mənzərə rənglərindən istifadə olunur. "Müqəddəs insanın ölümü", "Hörümçək sapı" novellasında nilufər gülünün ağ rəngi sülh, gözəllik, xoşbəxtlik və saflıq rəmzidir. "Üç kişi" povestində qırmızı rəng qan və ölümlə bağlı olduğu üçün mənfi xüsusiyyətlər və məna qazanır.

Akutaqavanın yaradıcılığında sənətkarların yaradıcı həyatından bəhs edən "Məktublar arasında" və uşaq ədəbiyyatından bəhs edən "Quru tarlalar", "Hörümçək toru" kimi uşaq ədəbiyyatına aid nümunələr, Müasir orta sinifin həyat tərzindən bəhs edən "Payız", "Genkakunun dağ evi" kimi psixoloji hekayələr də var.

Misal üçün "Genkakunun dağ evi" əsərində vərəmdən ölən bir adamın hekayəsindən bəhs edilir. Burada onun xanımı, ondan kənar illeqal münasibəti olduğu qadın, övladları və universitet dostunun təsviri verilir. Əsərdə göstərilir ki, onun mərasimindən sonra hamı vərəmdən ölən xəstəni unudur, halbuki mərasim zamanı gözyaşı tökürdülər. Burada diqqət edilməsi mühüm olan bir çox məqamlar var. 1) Əvvələn, müəllif burada iki məqamın olduğunu göstərir: Birincisi, heç dəyişməyən həqiqətlər, ikincisi müəyyən bir dönəmə damğa vuran özəlliklər. İkincisi isə, bir yandan da bu əsər müəllifin özünü simvolizə edir. Belə ki, özünü həmişə tənha hiss edən müəllif məhz "Tənhalığın cəhənnəmi" əsərini də buna görə yazmışdır. Hansı ki, əsərlərini yazmaqla "Dünyaya sanki yenidən gəlirəm" dediyinin və əsərlərində bunu əks etdirdiyinin də şahidiyik. Ömrünün son dövrlərindəki əsərlərində isə sanki keçmiş illərə dönür, onların hesabatını aparır. Maraqlısı da budur ki, o, hər nə qədər son dövrlərdə avtobioqrafik səciyyəli əsərlər yazsa da, 3-cü şəxs kimi məsələyə tam obyektiv yanaşır, hər şeyi öz saflığı ilə əks etdirir. Bununla belə, o, bütün ağrı-acılarından məhz yazmaqla qismən xilas olurdu.

Akutaqava olduqca həssas bir xarakterə sahib idi. Lakin bəzən onun qəddarlığına da şahid oluruq ki, bu da intihara yaxın dövrlərdəki əsərlərində əks olunur. Belə ki, o yazır: "Həyat mübarizə meydanıdır və bu meydanda çarpışmağı bacarmayanlar kənara çəkilməli..". Bu, bir yandan da onun intihar düşüncəsinə qapılması ilə bağlı olmuşdur. Hansı ki, o, özünü zəif hiss edir. Çünki düşdüyü "cəhənnəmdən" xilas ola bilmir. Bu cəhətlərinə görə, Akutaqava əsərlərinin tərcüməçilərindən olan R.Ramizoğu onu "Yapon ədəbiyyatının ən ağıllı dəlisi", G.Yunusova isə onu "Ən bədbəxt xoşbəxtlik içində yaşayan" adlandırıb.

Akutaqava dünyagörüşü etibarilə Azərbaycanın dahi şairi M.Ə.Sabirlə bəzi oxşar cəhətlərə sahibdir. Belə ki, Hər iki sənətkar öz xalq ədəbiyyatının tarixi materiallarına müraciətlər etmiş,

cəmiyyətdəki əyri-əskikləri görmüş, kasıb həyat tərzindən əziyyət çəkmiş, fiziki cəhətdən zəif olsalar da, çox güclü yaddaş və zəkaya malik olmuşlar. Tək fərq isə, Akutaqava Sabirin əksinə, cəmiyyətdə baş verən problemlərin səbəbini verə bilməmiş, çarə, çıxış yolu göstərə bilməmişdir. Onları birləşdirən ən ümdə cəhət isə yüksək səviyədə tənqid və ifşa qabiliyyətləridir.

Yaradıcılığının ilk mərhələsinə aid edilən əsərlərinin çatdırmaq istədiyi fikirlərdən biri olan insan eqoizmi ilə bağlı o deyirdi: "Yer üzündə əvvəlcədən pis adamları yetişdirən hazır qəliblər yoxdur, Hər halda hamısı normal adamlardır, amma elə bir an yetişir ki, onlar şərə çevrilirlər. Bax, bu, çox qorxuncdur".(Tənhalığın cəhənnəmi, G Natiq, s3). İnsanın mənəvi tənhalığı onun yaradıcılığının həmişə mərkəzində olmuşdur. Bu barədə sonradan yazdığı bütün əsərlər də "Tənhalığın cəhənnəmindən" çıxmışdır. Novellanın ideyasını sonrakı əksər əsərlərdə görmək mümkündür. Akutaqava deyirdi: "Belə bir fikir mövcuddur ki, guya ədəbiyyat siyasətlə bağlı deyil. Amma bu, tamamilə yanlışdır. Hətta deyərdim ki, onun ən böyük özəlliyi ondadır ki, ədəbiyyat siyasətlə bağlı olduğu üçün hal-hazırda mövcuddur.".

İngilis ədəbiyyatı üzrə yapon mütəxəssis Suboyti Syöye 1885-ci ildə "Romanın mahiyyəti" bir məqalə çap etdirir və bütün yazıçılara qaba metaforalı və kəskin məzmunlu ənənəvi yapon poetikasından imtina edib, Avropa yazı texnikasını mənimsəməyi təbliğ edirdi. Akutaqava romanın "mahiyyəti"ni belə başa düşür və nəticə çıxarır: "Əsas olan hissləri qələmə almaqdır, sonra adət və ənənələr gəlir. Hisslər əsərin beynidir".

Akutaqavanın novellistikasının ən önəmli üstünlüklərindən biri də hər yeni əsərində yeni bir mövzunun açılması, yeni problemin qoyuluşudur. Bu da onun əsərlərini təkrarsız edir. O deyirdi ki: "Şekspir, Höte, Tikamisu Mondzaemon ölə bilər, amma onları yaradan xalq heç vaxt ölməyəcək. Hər bir incəsənət öz formasını dəyişmiş olsa belə, xalqın mənəvi sərvətindən yaranır." deyə Akutaqava öz yazısında bildirir. Akutaqava get-gedə insan xaraketi və cəmiyyətin daha da yeni tərəflərini ələ keçirirdi. İnsan həyatının ən müxtəlif tərəflərini, İnsan mənəviyyatını təsvir edən yazıçı insan və dinin, buddizm və xristianlığın problemlərini incələyir, kiçik insanın ona düşmən olan cəmiyyətlə qarşıdurmasından yazırdı. O, eləcə də, incəsənət və həyatın qarşılıqlı əlaqələrinin problemlərindən, sosial ədalətsizlikdən bəhs edirdi. Son vaxtlarda müasirliyin problemlərinə toxunur, fərdin tənqidindən o vaxtkı yapon sisteminin tənqidinə keçirdi. Bu da xüsusi qeyd edilməlidir ki, onun əsərlərində fransız simvolistlərinin təsirini görmək, Çexov, Mopassan, Frans kimi dahilərin yaradıcılıq və əsərləri ilə paralellər aparmaq mümkündür.

Akutaqava Yapon ədəbiyyatının yüksəlişini təmin etmişdi. O, elə bir dövrdə yaşayırdı ki, Yapon ziyalısı bir neçə yüzillik izolyasiyadan sonra dünyanın kəşfinə çalışırdı. Akutaqavaya qədər yapon yazıçıları üçün hava xoş idi, lakin ondan sonra bir daha əsla əvvəlki kimi yaza bilməzdilər. Realizmi artıq əvvəlki formada qavramaq müşkül məsələ idi. Yaponiyada yeni bir dönəm məhz Akutaqava ilə başlamışdı.

O hər şeyi fərqli görür və fərqli qavrayırdı. Elə buna görə də o, yeni bir dövrü başlatmağı bacarmışdı. Onun haqqında deyirdilər ki, O, həyata ögeydir, sanki onun içində deyil, Ondan kənarda dayanıb. 30 yaşlarında çöllükdə bir yer bəyənmişdi. Həmin yer mamır basmış kərpic və kirəmit qalıqları ilə dolu idi, Halbuki bu onun gözündə Sezarın mənzərələrindən heç nə ilə fərqlənmirdi. (Günel, 2016)

Gənclik zamanı dediyi bir söz onun yaradıcılıq məramını müəyyən edirdi: "Həyat Bodlerin bir misrasına belə dəyməz". Bu zaman o Bodlerin "Şərin çiçəkləri" əsərinin təsiri altından hələ çıxa bilməmişdi.

Onun hər bir əsərinin psixoloji motivi var idi, "Yaradılığa mübtəla olmuş" novellasında isə əslində o "özünü" yazırdı: "Sabun köpüyü ilə dolu olan çəlləkdə tər-təmiz və qüsursuz göy üzü əks olunurdu. Onun fonunda görünən xurma ağacının meyvələri kirəmit damın üstündə şaxələnmiş nazik budaqları bir-birinə bənd edirdi.

Birdən qocaya elə gəldi ki, onun üstünə ölümün kölgəsi düşdü. Əvvəllər bu onu dəhşətə gətirərdi, indi isə zərrə qədər qorxutmadı. Hər şey çəlləyə əksi düşən göy üzü kimi sakit və dinc idi. Bu, daha çox, mövcud olmamağa bənzəyirdi. Əgər o, mənasız mövudluğun əzab və yanlışlarından azad ola bilsəydi. Əgər yalnız uşaqların qonağı olan məsum yuxulara qərq olub hər şeyi unuda bilsəydi... O, yaşamaqdan və illərdir ki, özünü ələ vermədən onu təqib edən yaradıcılıq əzablarından yorulmuşdu. "

Novellalar, hekayələr, povestlə, şerlər. Bir-birinin ardınca çap olunur, anındaca satılırdı. Onun şöhrəti bütün ölkəyə yayılmışdı. Ancaq həyat gücü yazıçını tərk etməkdəydi.

Akutaqava anasını xatırlayır və düşünürdü ki, dəyişkən, səbatsız ruh halı ona anasından gen yolu ilə keçib. Bu dövrdə "Dişli çarxlar" və "Əbləhin həyatı" əsərlərini yazır. Bu əsərlər onun yaradıcılığı və yapon ədəbiyyatının yüksəlişi dövrü hesab edilir. ""Əbləhin həyatı" onun ölümqabağı etirafı idi. Fikirləri də taleyi kimi kəsik-kəsik idi."

"O, 20 yaşlı gənc kitab rəflərinin önündə dayanıb yeni kitabları gözdən keçirir. Mopassan, Bodler, Strindberq, İbsen, Şou, Tolstoy...

Toran düşürdü, o isə kitabların üstündəki imzalara baxırdı. Onun önündə sadəcə kitablar deyil, sanki "Əsrin sonu" dururdu. Nitsşe, Verlen, Qonkur qardaşları, Dostoyevski, Qauptman, Flober... (Okyar, 2023)

Dar ağacını gözləyən Vayonun obrazı onun yuxularında peyda olmağa başladı. O da Vayon kimi dəfələrlə həyatın sonuna enmək istəmişdi. Amma həyat şərtləri və fiziki gücünün yetərsizliyi bunu etməyə mane olmuşdu. Get-gedə daha da zəifləyirdi. Nə vaxtsa Sviftin gördüyü, təpədən quruyan ağac kimi.

Əsrin sonunun şər iblisi onun ruhuna tam hakim kəsilmişdi. Allaha güvənən orta əsr insanlarına həsəd aparırdı. Allaha onun sevgisinə inanmağa gücü qalmamışdı. O Allaha ki, ona hətta kokto belə inanırdı!".

Ən önəmli və onun intihardan öncə yazdığı misralar, hansı ki, onun intihar edəcəyinə heç bir şübhə yeri qalmır, o misralar belə idi:

"Qadın ona içində boya turşusu olan flakon verib dedi: "Nə qədər ki, bu bizdədir, biz güclü olacağıq". O həsir kresloda əyləşib, Palıd ağacının yaşıl yarpaqlarına baxa-baxa ölümün gətirəcəyi hüzur və rahatlıq barədə düşünürdü."

Tədqiqat işi Azərbaycan və ingilis dillərində yazılmış xülasə, açar sözlər, giriş, nəticə və ədəbiyyat siyahısı hissəsindən ibarətdir.

Tədqiqat işinin aparılmasında müxtəlif ədəbi, pxisoloji-elmi təhlil metodikalarından istifadə olunmuşdur. Müxtəlif xarici və yerli internet resursları, müxtəlif monoqrafiya və məqalələrdən istifadə olunmuşdur.

Nəticədə dünya və yapon ədəbiyyatında önəmli rolu olan Akutaqava Rünoskenin yaradıcılığına müxtəlif aspektlərdən yanaşılmış və ədəbiyyatımız üçün tamamilə innovativ məsələlər gün işığına çıxarılmışdır. Belə ki, ilk dəfə mövcud dissertasiyada Akutaqavanın novellaları tam şəkildə təhlil olunmuş və ədəbi-bədii müqayisələr aparılmışdır.

**ƏDƏBİYYAT SİYAHISI.**

1. Şuici Kato. (2012). Japon edebiyyatı tarihi. Boğaziçi üniversitesi yayınevi, 770-782.
2. R.Ramizoğlu. (2006). Yeddi məhbusun hekayəti. Qanun nəşriyyatı, 4-6.
3. A.V.Erdemir.(2013) Üç sıradışı japon yazarın eserlerinde Türkiye imgeleri. Ankara üniversitesi, tarih-coğrafya fakültesi dergisi, 1-8
4. Z.E.Okyar. (2023) Bir budalanın yaşamı, Sel yayıncılık. 91-92
5. G.Natiq. (2016). Tənhalığın cəhənnəmi. Azərbaycan jurnalı. 3-5
6. E.İlham. (2010). Yapon ədəbiyyatı Antologiyası, Şərq-qərb nəşriyyatı. 4-6

# “CƏHƏNNƏM” ROMANINDA EKOƏDƏBİYYAT ELEMENTLƏRİ

**YEQZAR CƏFƏRLI**
Xəzər Universiteti
*yeqzar@gmail.com*
BAKI, AZƏRBAYCAN

XÜLASƏ

Tədqiqat işinin qısa icmalı. Hesablamalara görə, dünya əhalisinin sayı 8 milyardı ötüb. Son onilliklərdə baş verən sürətli əhali artımı bir sıra ekoloji problemlər yaradır. Təsadüfi deyil ki, iqlim dəyişikliyi məsələsi hazırda dünya ölkələrinin əsas müzakirə mövzularındandır. Covid-19 pandemiyasından sonra yaranan sosial-ictimai böhranlar iqlim dəyişikliyi problemini də aktuallaşdırmaqdadır. Ədəbiyyat da estetik bir sahə olduğu üçün onun ekoloji problemlərə münasibəti olduqca önəmlidir. Bu mənada çağdaş dövr ABŞ yazıçısı Den Braunun “Cəhənnəm” romanı əhəmiyyət kəsb edir. Romanda dünya əhalisinin sürətlə çoxalması problemi qaldırılır. Müəllif sözügedən mövzuya özünəməxsus şəkildə yanaşaraq postmodern gerçəklik yaradır. Romanda postmodernizmin pastiş, dekonstruksiya, intertekstuallıq kimi özəlliklərindən istifadə olunması bədii mətnin quruluşunu zənginləşdirir. Müəllif romanda Maltus nəzəriyyəsindən ideya materialı kimi istifadə edir. Dantenin məşhur “İlahi komediya” poemasının dekonstruksiyası olan romanda hadisələr detektiv planda cərəyan edir. Yazıçı bədii mətndə əhali artımının əsas nəticələrindən biri kimi ekoloji problemlərə diqqət çəkir. “Cəhənnəm” romanında ekoədəbiyyat elementləri müəllifin problemə həm subyektiv, həm də obyektiv yanaşmasının istiqamətləri kimi təqdim olunur. Nəzərə almaq lazımdır ki, interdisiplinar (təlimlərarası) metod baxımından bir elmi digəri ilə müqayisə etmək daha sağlam bir sonuc əldə etməyə imkan verir. Bu mənada ədəbiyyatla ekologiyanın vəhdəti mövcud problemin təsviri baxımından önəmlidir.

**AÇAR SÖZLƏR: Ədəbiyyat, ekologiya, dünya, cəhənnəm**

**ECOLITERARY ELEMENTS IN THE NOVEL "INFERNO"**

**SUMMARY**

According to the studies, the number of people in the world has exceeded 8 billion. Its rapid growth in recent decades creates a series of ecological problems. It is no coincidence that the issue of climate change is currently one of the main topics of discussion in the world. The social and public expectations that have arisen after the Covid-19 pandemic also make the problem of climate change relevant. Since literature is also an aesthetic field, its relation to ecological problems is very important. In this sense, the novel "lnferno" by the American writer Dan Brown is essential. The problem of rapid growth of the world population is raised in the novel. The author creates a postmodern reality by approaching the subject in a special way. The use of features of postmodernism such as pastiche, deconstruction, and intertextuality in the novel enriches the structure of the literary text. In the novel, the author uses the theory of Malthus as an idea material. In the novel, which is a deconstruction of Dante's famous poem "The Divine Comedy", the events take place on a detective plan. The writer draws attention to ecological problems as one of the main consequences of population growth in the literary text. Elements of eco-literature are presented in the novel "lnferno" as directions of both the author's subjective and objective approach to the problem. It should be taken into account that comparing a science field to another from the point of view of interdisciplinary method (educational relations) allows to obtain a healthier result. In this sense, the unity of literature and ecology is important in terms of describing the current problem.

**KEYWORDS: Literature, ecology, world, hell**

Tədqiqatın yazılmasında məqsəd Den Braunun “Cəhənnəm” romanında ekoloji problemlərə toxunmaqdır. Qarşıya qoyulan məqsədə çatmaq üçün romanda ekoloji problemlərdən bəhs edən bir neçə sitat seçilmiş və incələnmişdir. İqlim dəyişikliyinin, eləcə də ekoloji problemlərin aktual olduğu hazırkı dövrdə bu cür tədqiqatların aparılması faydalıdır. Bu tip tədqiqatların aparılması ölkəmizdə yenicə yayılmağa başlayan ekoədəbiyyat, ekotənqid kimi sahələrin inkişafına da töhfə verə bilər. Ekoədəbiyyat elementlərinin əks olunduğu əsərlərin təhlili zamanı bu konfrans materialından qaynaq kimi istifadə edilə bilər.

## GİRİŞ

Urbanizasiya, dünya əhalisinin sürətlə çoxlaması zaman-zaman iqlimlə bağlı problemləri də gündəmə gətirir. Ekologiya ilə ədəbiyyatın vəhdəti baxımından Den Braunun "Cəhənnəm" romanında ekoloji problemlərə münasibət aktuallıq kəsb edir.

Bilindiyi kimi 2024-cü il Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən "Yaşıl Dünya Naminə Həmrəylik İli" (3) elan olunmuşdur. Bu il Azərbaycanda keçirilməsi nəzərdə tutulan BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası, bilinən adı ilə COP29 (5) Prezidentin də qeyd etdiyi kimi ölkəmizə göstərilən etimadın göstəricisidir.

"Yaşıl Dünya Naminə Həmrəylik İli" həmçinin ekoədəbiyyat, ekotənqid kimi problemləri də gündəmə gətirir. Bəs ekoədəbiyyat nədir? Ekoədəbiyyat ədəbiyyatın ekoloji problemlərə münasibətidir. Ədəbiyyatda təbiət mövzusuna münasibət antik dövrdən bəri mövcuddur. Məsələn, Homerin "İliada" və "Odisseya" dastanlarında insan-təbiət münasibətlərinin vacibliyindən söz açılır. Antik yunan ədəbiyyatında Olimp Allahlarının təbiəti idarə etməsi, bu ənənənin antik roma mətnləri tərəfindən dəstəkləməsini də örnək kimi verilə bilər. XIV əsrdə ilk ədəbi cərəyan kimi formalaşan Humanizmin də əsas komponentlərindən biri təbiət idi. Bu mənada araşdırmaya cəlb olunan "Cəhənnəm" romanının humanist sənətkar olan Dante Aligyerinin "İlahi komediya" poeması (2) əsasında qələmə alınması təsadüfi deyil.

Dantenin humanist ideyalarını çağdaş dövrə montaj edən Den Braun insan-təbiət münasibətlərinin önəminə diqqət çəkir. Məsələn, romanda Afrikada bioloji, cinsi sağlamlığı qorumaq üçün seminarların təşkilindən danışılır. Bu seminarlardan əlavə ÜST onlara qoruyucular da paylayır. Yazıçı Afrikanın timsalında gerçəkliyi imitasiya edərək ekoloji problemlərə diqqət çəkir. Məlum olduğu kimi Afrika iqtisadi inkişaf göstəriciləri baxımından digər qitələrdən geridə qalır. Bununla Den Braun zəif, elmsiz kütlənin daha tez məhv olacağına işarə edir. "Daha nüfuzlu katolik missonerləri isə Afrikaya soxularaq qoruyucudan istifadə edənlərin cəhənnəmə düşəcəyini onların beyninə yeritdi. Afrikanın yeni bir ekoloji problemi yaranıb – zibilxanalar istifadə olunmamış qoruyucularla dolur" (1, s.129).

Den Braun göstərir ki, insanların sayı sürətlə çoxaldıqca təbiətin də fəaliyyəti pozulur. İri şəhərlərin salınması nəticəsində yaranan urbanistik problemlər, havaya buraxılan zərərli qazlar kimi bir çox problemlər böyük təhlükələrə səbəb olur. Den Braun əhali artımı problemini önə çəkməklə təbiətin xilas modellərini təklif edir. İnsan şüurlu varlıq olduğundan atacağı addımları qabaqcadan müəyyən etməlidir. Lakin dünya əhalisinin sürətli artımı insanların bəzi məsələlərdə instinktiv davrandıqlarını göstərir. Misal olaraq, bəzi fanatik düşüncə sahibləri dünyaya çoxlu uşaq gətirməyin xilas yolu olduğunu düşünürlər. Lakin onların sonrakı taleyi, qarşılacağı problemlər gözardı edilir.

Maraqlıdır ki, Den Braun Maltus nəzəriyyəsini nəticə olaraq dəstəkləsə də, səbəb olaraq öz yanaşmalarını təklif edir. "İstənilən ekoloji bioloqist və ya statist bəşəriyyətin uzun müddət var olması üçün ideal rəqəmin dörd milyard olduğunu təsdiqləyər" (1, 132). Onun təklif etdiyi yaxşı insan modeli idi. Yəni, hər insan bir dünya vətəndaşı olduğunu unutmamalıdır. Romanda yaxın onilliklərdə dünya əhalisinin daha da artacağı, ciddi bioloji, iqtisadi, ekoloji problemlərin yaranacağı istisna olunmur. Romanın 2016-cı ildə amerikalı rejissor Ron Hovardın çəkdiyi "Cəhənnəm" filmi (4) vasitəsilə mavi ekranlara yansıması problemin vizual təsviri baxımından önəmlidir. Daha çox triller təəssüratı daşıyan filmdə qorxu, macəra elementləri uğurla işlənmişdir.

Dante "İlahi komediya"da günahkar insanları "Pislər sürüsü" adlandırır. "Dərhal başa düşdüm, inandım ki, Tanrının da, düşmənlərinin də sevmədikləri pislər sürüsü idi bunlar" (2, 50). Den Braun isə "İlahi komediya"nın "Cəhənnəm"ini müasir dövrə gətirərək günah konseptinə fərqli baxış ortaya qoyur. Müasir cəhənnəm yaşadığımız dünyadır. Bu cəhənnəmi yaradan Allah yox, insanlardır. Den Braunun günahkar insanları təbiəti məhv edənlərdir. "İlahi komediya"da günahkarlar cəzalanırdısa, "Cəhənnəm" romanında günahının olub-olmamsından asılı olmayaraq hamı cəzalanır. Bununla da, Den Braun problemin böyüyərək nəzarətdən çıxdığına işarə edir.

Romanda Bertrand Zobrist adlı bir alim virus hazırlamasından söz açılır. Həmin virus sayəsində insanların sonsuzluğa düçar olacağı ehtimal olunur. Zobrist Maltus nəzəriyyəsinin dəstəkçisi kimi çıxış edərək müharibə, pandemiya, təbii fəlakətlər, aclıq, susuzluq və s. böhranları xilas yolu olaraq təklif edir. "Essedə deyilirdi ki, bəşəriyyət uçurum kənarında dayanıb. Qlobal artımın sürətini azaldacaq hansısa bir fəlakət baş verməsə, insan nəslinin ömrü yüz ildən də az qalıb" (1, s.266). Məlumdur ki, bu cür xilas yolu daha çox kasıb və zəif iqtisadiyyatı olan ölkələrin zərərinədir.

Zobristin fəaliyyətini tənqid edən müəllif bunun sağlam çıxış olmadığını qeyd edir. “Bütün bunlar xilasdır, yoxsa antixilas?!” ritorik sualı roman boyu əsas ideyanın ətrafında dövr edir.

Den Braun fərd amilinə diqqət çəkərək Danteni dəstəkləsə də, problemin sosial olduğununun fərqindədir. Dante insanları humanizmə səsləyərək onları günahdan uzaqlaşdırmağa çalışır. Poema boyu təbliğ etdiyi humanist keyfiyyətləri insanlara xilas modeli kimi təqdim edir. “Yaxşılığın üçün arxamca gəl, izlə məni, rəhbərin olacağam, buradan alıb, əvvəli, sonrası olmayan bir yerə götürəcəyəm səni” (2, s.35). Den Braun da eyni metoddan istifadə edərək xilas modelləri təklif etməyə çalışır.

**TƏDQİQAT METODU**

Tədqiqatın yazılması zamanı analitik təhlil metodundan istifadə edilmişdir. Belə ki, təhlil zamanı bu sahə üzrə aparılmış bir neçə tədqiqatın nəticəsinə nəzər yetirilmiş, əldə olunan nəticələr analitik təhlilə cəlb edilmişdir.

**NƏTICƏ**

“Cəhənnəm” romanında ekoədəbiyyat elementləri romanın ideyasının vacib komponentlərindəndir. “Cəhənnəm” romanı vasitəsilə müəllif Dantenin mənən təmizlənmə konsepsiyasının vacibliyini müasir dövrə proyeksiya edərək insanların sürətlə çoxalmasını səbəb, ekoloji problemləri isə nəticə kimi təqdim edir. Əsərdə ekoloji problemlərin təsviri detektiv şəklində verildiyindən bədii mətn estetik olaraq bir qədər zəif təsir bağışlayır. Lakin müəllif mövzunu əhatəli işləməklə, aparılan müqayisələrlə problemin ciddiliyini təsvir edə bilib. Den Braun oxucunu hərtəfərli bilgiləndirməklə insan-təbiət münasibətlərinin pozulmasının faciəli nəticələr doğuracağına diqqət çəkməyə çalışır. Müəllif xilas-antixilas modelindən istifadə etməklə problemin səbəb olaraq məlum, həll olaraq qeyri-müəyyən olduğunu önə çəkir. İnsanların sayının sürətlə çoxlamasının qarşısıalınmaz bir proses olduğunu etiraf edən müəllif haqlı olaraq aparılan mübarizənin nəticəsini naməlum saxlayır. Bütövlükdə Den Braunun gerçəkliyi imitasiya cəhdlərini uğurlu hesab etmək olar. Mövcud problemin təsviri və həll yollarını müəyyən etmək baxımından romanı detektiv janrın sərhədləri daxilində uğurlu hesab etmək olar.

**ƏDƏBIYYAT SIYAHISI**

1. Braun D. Cəhənnəm. (2017). Bakı/Azərbaycan.
2. Aligyeri D. İlahi komediya. (2004). Bakı/Azərbaycan.
3. Azərbaycan Respublikasında 2024-cü ilin “Yaşıl dünya naminə həmrəylik ili” elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı https://president.az/az/articles/view/62737
4. Cehennem filmi. – 14 oktyabr, 2016. https://www.beyazperde.com/filmler/film-222798/
5. COP29 2024-cü ildə Azərbaycanda keçiriləcək. https://eco.gov.az/az/nazirlik/xeber?newsID=20466

# MİNƏ SÖĞÜTÜN "DƏLİ QADIN HEKAYƏLƏRİ"NDƏ QADINLIQ VƏ DƏLİLİYİN BƏDİİ PROYEKSİYASI

**Ülvi BABASOY**
ulvi.babasoy@khazar.org
Xəzər Universiteti
Bakı Mühəndislik Universiteti

**Ziyafət Soltanzadə**
ziyafat.soltanzada2021@khazar.org
Xəzər Universiteti

**Aytac Məmmədova**
aytac.mammadova2021@khazar.org
Xəzər Universiteti

**Gülyaz Əhmədova**
gulyaz.ahmadova2021@khazar.org
Xəzər Universiteti

**Xülasə**

Bu məqalədə Minə Söğütün "Dəli qadın hekayələri" hekayələr toplusunda qadınlıq və dəliliyin bədii proyeksiyası elmi tədqiqata cəlb edilmişdir. Məqalədə, əvvəla, dünya ədəbiyyatı tarixində qadın yazıçıların bu mövzuları fərqli aspektlərdən işləməsinə toxunulur. Daha sonra Türkiyə nəsrində qadın yazıçıların qadın talelərini bədii düşüncənin predmetinə çevirən yaradıcılığı nəzərdən keçirilir. Məsələyə kopleks baxış Minə Söğütün yaradıcılığına keçid üçün şərait yaradır. Minə Söğütün "Dəli qadın hekayələri"ndə qadınlıq və dəlilik mövzusu tədqiq edilərkən Rotterdamlı Erazmın "Dəliliyin tərifi" əsəri uyğun tədqiqat və təsnifat üçün geniş panorama, mənzərə yaradır. Mişel Fukonun "Cinsiyyətin tarixi" və "Dəliliyin tarixi" əsərləri qadınlıq (cinsiyyət) və dəlilik anlayışlarına müasir elm, fəlsəfə və düşüncə sisteminin baxışını təhlil edib ciddi bir elmi və ədəbi qənaət yaratmağa kömək edir. Hekayələrin müqayisəli şəkildə analiz edilməsi tədqiq edilən mövzunu daha da konkretləşdirir. Minə Söğütün "Anamın o gözəl saçları", "Daxilində atəşə yaxın bir şey olan qadın", "Məharətli, çəhrayı əl", "Məni öldürmək istəyən möhtəşəm həyat", "Əməköməci çayı", "Gecəniz xeyirə qalsın, ölü pişiklər", "Madam Arthur bəy" və başqa hekayələrində qadınlıq və dəliliyin bədii proyeksiyası fərqli versiya və sənət estetikaları kontekstində tədqiq edilmişdir. Nəticədə, Minə Söğütün "Dəli qadın hekayələri"ndə qadınlıq və dəliliyin bədii proyeksiyası ilə bağlı ciddi elmi qənaət və nəticə əldə edilmişdir.

**Açar sözlər:** *Minə Söğüt, "Dəli qadın hekayələri", qadınlıq, dəlilik, bədii proyeksiya, çoxsəsli estetika*

**ARTİSTİC PROJECTİON OF FEMİNİNİTY AND MADNESS İN MİNE SOGUT'S "MAD WOMAN STORİES"**

**Summary**

In this article, the artistic projection of femininity and madness in Mine Sogut's collection of stories "Mad woman stories" is involved in scientific research. First and forthermost, it is addressed that how women writers worked on these topic from different aspects in the history of world literature. Then, it considered the creative work of female writers in Turkish prose who have turned women's fates into the subject of artistic thought. A complex view of the issue creates conditions for the transition to Mine Sogut's work. While the subject femininity and madness is explored in Mine Sogut's "Mad woman stories", "In praise of folly" work by Erasmus Roterodamus creates a wide panorama and view for appropriate research and classification. Michel Foucault's "The history of sexuality" and "Madness and civilization" analyze the views of contemporary science, philosophy and thought system on the concepts of femininity (gender) and madness and help to create a serious scientific and literary conclusion. Comparative analysis of the stories further specifies the researched

topic. In Mine Sogut's "My mother's beautiful hair", "A woman with something close to fire inside", "Skillful, pink hand", "A magnificent life that wants to kill me", "Mallow tea", "Goodnight, dead cats", "Madam Arthur Mr." and other stories, the artistic projection of femininity and madness is explored in the context of different versions and art aesthetics. As a result, serious scientific conclusions and results was obtained regarding the artistic projection of femininity and madness in Mine Sogut's "Mad woman stories".

**Key words**: *Mine Sogut, "Mad woman stories", femininity, madness, artistic projection, polyphonic aesthetics*

**Giriş**

Qadın mövzusu dünya ədəbiyyatı tarixində xüsusi yer tutur və olduqca dəyərlidir. Bu tematikanın qadın yazıçılar tərəfindən təqdim edilməsi isə daha konkret ədəbiyyat hadisəsidir. Emili Bronte, Ceyn Ostin, Vircinya Vulf, Selma Lagerlöf, Nadin Qordimer, Toni Morrison, Elfrida Yelinek, Doris Lessinq, Herta Müller, Svetlana Aleksieviç, Olqa Tokarçuk, Ursula Le Quinn, Marqaret Etvud, Zeydi Smit və başqalarının qadın obrazları ədəbi yeniliklərilə diqqəti cəlb edirlər. Türk ədəbiyyatında isə Xalidə Edip Adıvarın "Milçəkli baqqal", Xalidə Nüsrət Zorlutunanın "Dumanlı gecələr", Erendiz Atasünün "Daş üstündə gül oyması", Leyla Ərbilin "Qəribə bir qadın", Pəridə Cəlalın "Qurdlar", Buket Uzunərin "Qumral Ada, mavi Tuna", Lətifə Təkinin "Əziz, arsız ölüm", Nazlı Erayın "Yuxu stansiyası", "Qız öpmə növbəsi", "Eşq artıq burada yaşamır", Sevgi Soysalın "Yeni şəhərdə günorta vaxtı", Ədalət Ağaoğlunun "Yayın sonu", "Ruhun üşüməyi", Əlif Şəfəqin "Eşq", "Ustam və mən", "Həvvanın üç qızı", Ece Temelkuranın "Banan səsləri", Nazan Bəkiroğlunun "Mücəlla", Perihan Mağdenin "İki gənc qızın romanı", Xədicə Məryəmin "Qadını öldürərkən haradan başlamaq lazımdır?", Minə Söğütün "Dəli qadın hekayələri" əsərlərində ya birbaşa, ya da dolayı yolla qadın mövzusu və problemi bədii düşüncənin predmetidir.

"Minə Söğüt 1968-ci ildə İstanbulda doğulmuşdur. 1989-cu ildə İstanbul Universitetinin Latın dili və ədəbiyyatı ixtisasından məzun olmuşdur. 1990-cı ildə Günəş qəzetində jurnalistika fəaliyyətinə başlamış, fəaliyyətini Tempo və Yeni yüzil qəzetlərində davam etdirmişdir. "Beş sevim mənzili" (2003), "Qırmızı zaman", "Şahbazın qeyri-adi ili-1979" (2007), Madam Artur bəy və həyatındakı hər şey" (2010) və "Başqalarının tanrısı" (2022) romanlarının müəllifidir" [1, s. 7].

**Tədqiqat metodu**

Məqalədə tarixi-müqayisəli və analiz metodundan istifadə edilmişdir. Qadınlıq və dəlilik mövzusu müqayisəli şəkildə elmi tədqiqatın predmetinə çevrilmişdir. Minə Söğütün "Dəli qadın hekayələri"ndə qadınlığın bədii ifadəsi dəlilik kontekstində tədqiq edilmişdir.

**Minə Söğütün "Dəli qadın hekayələri"ndə qadınlıq və dəlilik**

Müasir türk ədəbiyyatının istedadlı nümayəndəsi Minə Söğütün "Dəli qadın hekayələri" (2011) hekayələr toplusunda qadınlıq və dəliliyin bədii proyeksiyası verilmişdir. Minə Söğütün ədəbi repertuarında qadın mövzusu aparıcıdır. Yazıçının "Beş sevim mənzili" və "Başqalarının tanrısı" romanlarında da qadın obrazlar semantik mərkəz təşkil edirlər.

"Dəli qadın hekayələri"ndə ən fiziki, maddi hadisələr də metafiziki səviyyədə təqdim edilir. "Təhkiyəçi dəlilik səviyyəsinə gələn, havalanan, həyatla ölüm arasında tərəddüd edən qadınlarla çoxqatlı bir körpü qurur. Qadınların dəliliyi sanki onları bu dünyadan ayırmaq istəyir. Hətta ayırmağı bacarır. Özünü tavandan asaraq, biləklərini ülgüclə kəsərək, pəncərədən tullanaraq, törətdiyi yanğında yandıraraq və kişilər tərəfindən həyatlarına son qoyularaq qadınların bu dünyadan köçdüyünün şahidi oluruq. Bu ayrılıq prosesindəki mənəvi gərginliyin sakit, sadə təhkiyəsi oxucuya çatanda alt-üst olur; dərinə, ən dərinə enərək oxucuda şok effekti yaradır. Bu hekayələr ilk baxışdan fantastik bir mətn ehtimalını irəli sürsə də, həqiqətin özüdür" [5, s. 89].

"Anamın o gözəl saçları" ilk hekayədir. Minə Söğüt elə ilk hekayədə oxucuda şok effekti yaradır. Ata, ana və qızları arasında bir əlaqə var, bunun adı ölümdür. Kişi arvadının saçını kəsir, öz doğma qardaşını isə öldürür. Çünki falçının kəhanəti reallaşır. Falçı kişinin aşiq, dəli qardaşı haqda deyir: "Bu adam şabalıdı rəngli və buruq saçlı bir qadına aşiq olmuşdur" [1, s. 18]. Hekayədə qadına qarşı zorakılıq olduqca fərqli bir üslubda nəql edilir. Uşağın dünyası və baxışı aspketindən metafiziki hadisə və estetika kontekstində danışılan hekayədə qadına, anaya qarşı zorakılığın fərqli detalları ilə qarşılaşırıq. Qadınlara qarşı zorakılıqlara estetik etiraz olan "Dəli qadın hekayələri" sosial, psixoloji problemlərin bədii həllini verir. Bu hekayələr, təəssüf ki, çağdaş həyatla da səsləşir. "Məişət

zorakılığının üç ölçüsü var: fiziki, psixoloji və cinsi. Ailədaxili zorakılıq dedikdə daha çox fiziki zorakılıq yada düşür. Söyüş söymək, təhqir etmək, qışqırmaq, hədələmək kimi məsələlər də zorakılığın ünsürləridir" [7, s. 50]. "Dəli qadın hekayələri"ndə fiziki və metafiziki zorakılığa məruz qalan qadınların son seçimləri intihardır. "Anamın o gözəl saçları" hekayəsində ana obrazı siluet kimi var. Onun varlığını müəllif qəsdən bir kölgə, siluet kimi vermişdir. Yəni belə məhzun qadınların həyatlarına qiymət verilmir. Varlıqları ilə yoxluqları arasında ciddi bir "fərq yoxdur". Zorakılıqlarla keçən bir ömür üçün intihar və ya ölüm xilas yoludur. Mişel Fuko "Cinsiyyətin tarixi" kitabında ailə daxilində mövcud olan cinsiyyət və seksuallığı olduqca dəqiq analiz edir. Yavaş-yavaş və mürəkkəb şəkildə biz evliliyin təbii qanunları ilə barışırıq. Seksuallıqla bağlı qaydalar iki ayrı registrdə qeyd olunmağa başlayır. Qanuni, yaxud da əxlaqi uyğunsuzluq dünyası ilə kəsişir, lakin müxtəlifliyi olmayan bir azğınlıq dünyası yaranır" [3, s. 37]. Yəni evlilik prosesindəki cinsi orientasiya və münasibətlər leqallaşır. Bu leqallıq isə zorakı kişilər tərəfindən öz istək və hökmlərinə uyğun şəkildə tənzimlənir. Artıq qadın onun həyat yoldaşıdır və istədiyi kimi, "qanuni" qısqanclıq böhranlarına girə biləcəyini, fiziki güc və zorakılıq tətbiq edəcəyini düşünür. Eynilə hekayədəki kişinin qəddar addımları və yersiz qısqanclıq böhranları, isteriyaları da belədir. Hətta bu cür davranış etiketləri cinayətə gətirib çıxarır.

Rotterdamlı Erazm "Dəliliyin tərifi" əsərində olduqca dəqiq bir müşahidə aparır. Dəli adlanan insanların müdrik, müdrik olan insanların da hədsiz dərəcədə dəli olduğu qənaətinə gəlir. Hətta onu dinləyənləri dəli adlandırır: "Bəs indi mən necə deyim? Dəli dinləyicilər? Niyə də yox? Bu, dəlilikdir. Peşəsini bilənlərə verilə biləcək ən şərəfli addır". [4, s. 12]. Minə Söğüt də "Daxilində atəşə yaxın bir şey olan qadın" hekayəsində Erazmla intertekstual əlaqə yaradır. Minə Söğütün qəhrəmanları dəli və qadın olmaqdan imtina etmirlər. Lakin onları olduqları kimi yaşamağa qoymayan, zorakılıq edən insanlara və həyata etiraz əlaməti olaraq intihar edirlər. Bəzən də Edipin qadın formasına çevrilib özlərinə işgəncə verirlər. "Daxilində atəşə yaxın bir şey olan qadın" hekayəsində Erazmın dəliliyə verdiyi tərifla üst-üstə düşən bir passaj var: "Dəli olduğunu bilir? Bunu bilmək mümkündür? Hə, bilir. Dəlilikdən xilas olmaq istəyib heç? Sağalmaq istəyib heç olmasa? Yox, o çox sevib dəliliyini". Hekayənin qəhrəmanı qadın kimi ilk travmasını uşaqkən alır. Evə onu müalicə etməyə gələn qoca həkimin cinsi zorakılığına məruz qalır. Utanc və qorxusundan susur. Yetkin yaşlarında isə güvəndiyi və ünsiyyətə girdiyi yeganə insan, kişi olan gənc şair tərəfindən zorlanır. Artıq dəli kişilərə də güvənin olmadığı bir dünyada yaşamın mümkünsüzlüyünü dərk edir və qollarını kəsir: "Damarlarından boşalan və hələ də qıpqırmızı olan qan qapıya çatmadan laxtalanıb donmuşdu. Artıq gülümsəmək istəyirdi. Hara? Hər yerə" [1, s. 50]. Bu ölü və dəli qadının hər yerə və hər kəsə qarşı son və acı gülüşüdür. Bu qadın Minə Söğütün "Başqalarının tanrısı" romanının qəhrəmanı Əfsunu xatırladır. Əfsun yeganə inandığı və sevdiyi kişi tərəfindən cinsi istismara məruz qaldığı üçün ayaqlarını dibindən kəsir. Kəsir ki, sevdiyi adam onu başqa kişilərə bir daha sata bilməsin.

Mişel Fuko "Dəliliyin tarixi" əsərində dəliliyin sosial və antropoloji səbəblərini açıqlayır. Filosof dəliliyə səbəb olan amilləri belə sadalayır. "Xəstənin çoxsaylı mexanizmlərin içərisinə sığışdırılmış və karlaşmış mövcudluğunu kəşf etmişlər. Ehtiras, nizamsızlıq, mənəvi boşluq, avaralıq, xaotik şəhər həyatı, çox oxumaq, təxəyyülün mürəkkəbliyi, həm özünü oyatmaq, həm də narahatlıq hiss etmək kimi hallar özlüyündə ağlın dəlilik təhlükəsinin içinə girməsi və ya bütün təhlükəni ehtiva edən azadlıq oyunlarıdır. Bu hal həm inadkar, həm də kövrək olan azadlıqdır" [2, s. 726-727]. Minə Söğütün "Məharətli, çəhrayı əl" hekayəsində qadının yaşadığı travmaların sosial və bədii proyeksiyası verilir. Məharətli, çəhrayı qadın əli gözəl və mərhəmətlidir. Ancaq bu qadının əlində iri, qara qarmaq var. Müəllif qeyd edir ki, əgər bu qarmaq hər hansı kişinin əlində olsa idi, o zaman həmin şəxs çox heybətli görünərdi. Ancaq zərif və çəhrayı qadın əlində ürək bulandırır. Bu hekayədə dəmir və qara qarmaq qadının nizamsız, stresli ailə həyatındakı travmalardır. Bu travmalar anadan hekayəni danışan qızına da keçib. Həmin qarmaqlar ananın damarlarını kəsir və intiharla bir ömürə son qoyur. Fuko dəliliyin səbəbləri arasında mənəvi boşluğu da qeyd edir. Hekayənin qəhrəmanı əri tərəfindən heç bir qayğı görmədiyi üçün böyük bir mənəvi boşluq və böhranın içində çabalayır.

Minə Söğüt həyatı xatirələrlə təzadda verərək mənalandırır. Bəzən insan sadəcə unutmağı arzulayır və bu proses yalnız ölümdə mümkün görünür. Çünki insan öz sərhədlərindən və kimliyindən azad ola bilmir. Həyatından ifrat dərəcədə küskün insanlar ölümü keçmişin acı xatirələrindən üstün tuturlar. Beləliklə, dəli qadınlar üçün yaşamaq ölümün proyeksiyasıdır. Bu məsələlər "Məni öldürmək istəyən möhtəşəm həyat" hekayəsində daha qabarıqdır. "İnsan ölərkən keçmişi xatırlasa, çox

kədərlənər, elə deyilmi? İnsan öləndə niyə kədərlənməlidir ki? /e veux Seulement oublier...” [1, s. 27]. Yazıçı ölüm anında olan qadının həyatındakı minlərlə xatirəni müxtəlif musiqilərlə ifadə edir. Çünki belə bir həyata müəllif də, həyat da, ədəbiyyat da məhzun, nəğməli bir elegiya ilə etiraz edir. Qadının dəli olma səbəbi isə onun bütün uşaqlarının özündən əvvəl asılaraq, yanıb kül olaraq, bıçaqlanaraq faciəli şəkildə öldürülməsidir.

“Dəli qadın hekayələri”ndə Minə Söğüt həyatın müxtəlif anlarında, situasiyalarda susdurulmuş qadınlara da söz verir. Onları həyatın, gündəlik tarixin və ədəbiyyatın səhnəsinə çıxarır. Onun nəsrinin poetikası, nəqarət kimi təkrarlanan sözlərin enerjisi oxucuları “dəli qadınlarla” empatiya yaratmağa dəvət edir. Bununla da, oxucuların dəlilik və qadınlıq haqqında qərəzli təsəvvürlərini dəyişir. “Əməköməci çayı” hekayəsi atası narkotik vasitələrin qurbanı olan balaca qızın yaşadığı travmaların bədii transformasiyasıdır. Hekayəni oxuduqca kiçik yaşlarından gözlərinin önündə baş verən, lakin mənalandıra bilmədiyi hadisələrin onun gələcək həyatını necə məhv etdiyinin şahidi oluruq. O ac-susuz qalmış, evin bütün işlərini yüklənmiş, döyülüb, təhqir olunmuş və bütün bunların qarşısında susmuş bir uşaqdır. Ümumiyyətlə, hekayənin qəhrəmanı sevgi və qayğıdan başqa heç nə istəməyən uşaqların ümumiləşmiş obrazıdır: “Amma siz məni nə hiss edir, nə də duyurdunuz” [1, s. 37]. Uşağın bu sözlərini ekzistensial çıxılmazlığın və bu cür uşaqların həyatlarının epiqrafı kimi düşünə bilərik.

Kitabda qadınlığın dialektikası tədqiq edilir və dəlilik adi bir hal kimi deyil, ağıllı və dözümlü olmağın proyeksiyası olaraq bədii fikrin predmetinə çevrilir. Söğütün hekayələrindəki personajlar öz dəliliklərini bir azadlıq forması kimi qəbul edirlər. “Gecəniz xeyirə qalsın, ölü pişiklər” hekayəsinə nəzər salaq. Hekayənin qəhrəmanı pişiklərlə bərabər küçələrdə yaşayan və onları öz həyatının görünməyən tərəflərinin ifadəsi kimi qavrayıb bəzən sevən, bəzən isə incidən bir qadındır. Baş verənləri müşahidə edən hər kəs onun adi bir dəli olduğunu düşünür, lakin uşaq yaşlarında ögey atası tərəfindən təcavüzə uğrayan, bu səbəblə evlərini oda ataraq yandıran və dəli olan bu qadın yaşadığı keçmişi unuda bilmir. Bir zamanlar gözəl və xoşbəxt olduğunu ona xatırladan, tüklərində küçə həyatına heç yaraşmayan təmizlik və parlaqlıq olan Ajda adını verdiyi pişiyi də bu səbəblə döyərək uzaqlaşdırır, beləcə də xatirələrindən qurtulmağa çalışır. Onun küçə pişiklərinə təkrar-təkrar əzbərlətdiyi cümlələrdən biri isə günümüzün aktual problemlərindən birini və hekayənin təməlini özündə əks etdirir: *“Bir adam qızıyla anasını birlikdə alarsa, bu alçaqlıqdır”* [1, s. 59 ].

Əsərdə dəlilik məfhumu sadəcə psixi vəziyyət hesab olunmamalıdır, o, əsasən, sosial təzyiqlərə qarşı müqavimət üçün güclü simvolik məna daşıyır. Nəticədə, əgər bir insan dəli doğulmayıb zamanın axarında dəli olubsa, əmin ola bilərik ki, onu dəli edən faktorlar yaşadığı cəmiyyətlə birbaşa əlaqəlidir. Elə ona görə də yazıçı gündəlik həyatımızda dəli olmamaq üçün qaçmağa, unutmağa çalışdığımız, üzləşməkdən ehtiyat etdiyimiz hər problemlə bizi qarşılaşdırır. Məsələn, dilənçi uşaqlarının həyatı, əmək istismarı, cinsi istismar, nikaha məcbur edilən, ailəsi tərəfindən tərk edilən qızlar, şiddət görən qadınlar və sairə. Yazıçı kitabın sonuncu “Özümü niyə bu şəhərdə öldürdüm” adlı hekayəsində fikirlərini ümumiləşdirir və belə bir qənaətə gəlir: “Bu şəhər yüz illərdir ki, kişidir və qadınları sevməyi bacarmır” [1, s. 184].

**Mine Söğütün “Dəli qadın hekayələri” ndə dəliliyin və qadınlığın bədii proyeksiyası**

Hekayələrdə qadınlara yüklənən “məsuliyyətlər” təbii deyil, sintetikdir. Dəli və qadın olmaq onların qaçınılmaz sonu kimi əks olunur. Bu qadınları öldürmək üçün tək əzab vermək və yaxud qol gücündən istifadə etmək kifayət deyil. Qadını öldürməyin başqa bir yolu onun həyata qarşı olan sevgisini öldürməkdir. “Can illah da qanlamı çıxar bədəndən?” [1, s. 24]. Onu sevənləri və onun sevdiklərini ondan almaqla da öldürmək mümkündür. “Məni öldürmək istəyən möhtəşəm həyat” hekayəsində həyata olan sevgisini itirmiş qadının, ananın dəli olmasına səbəb uşaqlarının öldürülməsi olmuşdur. Həyata qarşı sevgisinin simvolu olan mahnılar həyat eşqinin azalması ilə bərabər say olaraq azalır.

“İlan” qadınların əzabları və onların qarşısına bir tələb kimi qoyulan çoxalmaq, dünyaya uşaq gətirmək və bu zaman çəkdikləri ağrıların, acıların tərifsiz olduğunu vurğulayan hekayələrdəndir. Həmçinin hekayədə azyaşlı qadınların uşaq sahibi olması və bu düşüncənin onlarda yaratdığı qorxu ilanla təsvir edilmişdir. “Hər gecə ilan doğduğumu görürdüm yuxumda” [1, s. 146] .

Cinsi istismara məruz qalmaq əzəldən bəri qadınlara qarşı edilən zorakılıqlardandır. “Milçəklər sevişərkən” hekayəsində atası tərəfindən cinsi istismara məruz qalan qadının ruhi-psixoloji vəziyyətinin bədii portreti çəkilir. “Kəpənəklərdən qorxuram, ana... Mənlə danışmaq istəyirlər. Bir gecə yuxudan anidən oyanan və ayaqlarımı qoparan adamın, atamın adını pıçıldayırlar... Kəpənəklərin

dediklərini eşitmək istəmirəm, ana" [1, s. 114-115]. Bildiyimiz kimi, kəpənəklərin ömrü qısadır və onları görməsi qadına ömrünün xoşbəxt anlarının çox "az" olduğunu yada salır. Digər tərəfdən milçəkləri görməsi isə ona o qorxunc əhvalatı xatırladır. "Onlara kim dedi ki, mən çarpayıda yaralı yatmışam, illər əvvəl ayağım sındırılıb? Və kəsilmiş yerlərimdə yaralar var" [1, s. 115]. İstismara məruz qalan qadının iflic olması və həyat eşqinin sönməsi fiziki və metafiziki zorakılıqların dəlilik halıdır.

"Vida mərasimi" azad sevgidən məhrum edilən qadınların məhzun hekayəsidir. Məcburi evlilik və nikahların pataloji travmaları bu hekayənin predmetidir. Keçmişini, sevdiyi insanın su başında öldürülüb qanının suya qarışdığını unuda bilməyən qadının da su içərisində biləklərini kəsərək öldürməsi ilə hadisələr yenidən təkrarlanır. Belə bir mövcudluğa dözə bilməyən su da öz etirazını bildirir. Qadın kimi dəli olur. "Deməli, su öz başına gələnləri heç vaxt unutmayıb. Hadisələri bir nağıl olub təkrar-təkrar danışarmış, intiqam alarmış... Heç birimiz başa düşmədik" [1, s. 132].

**"Dəli qadın hekayələri"ndə çoxsəsli estetika**

Minə Söğüt hekayələrində postmodern ədəbiyyata aid çoxsəsli estetika və palimsest texnikalardan məharətlə istifadə edir. Hekayələrdə istənilən ədəbi metod və priyomlar yeni bir ədəbi fikir və düşüncə axtarışına, ciddi və elitar sənətə xidmət edir. "Sənət yaradıcılıq deməkdir. Yaradıcılıq isə köhnəni təkrarlamaq deyil, dövrün gerçəkliyini əks etdirən modern forma subyektləri ilə yeni tərtib və quruluşlar yaratmaqdır" [6, s. 208]. İnsanlar tərəfindən dəli olmağa vadar edilən qadınların qaranlıq həyatlarını ədəbiyyat və sözlə işıqlandıran Minə Söğüt qadın olaraq doğulmasa da, özünü qadın kimi hiss edən Arthurun da vəziyyətinin bədii portretini yaradır. Xüsusən də, "Madam Arthur bəy" hekayəsində Arthurun cinsi kimliyi ilə bağlı mürəkkəb hissləri, cəmiyyətin bu vəziyyətə necə reaksiya verməsi çox incəliklə işlənmişdir. Arthur özünü həm kişi, həm də qadın hiss edərək gender normalarına meydan oxuyur və bu, onu digər personajlardan fərqləndirən xüsusiyyətdir. "O, nə Arthur idi, nə də Eleni. Həm Arthur idi, həm də Eleni" [1, s. 83].

Cinsi orientasiyanın üç əsas təsnifatından biri olan biseksuallığın insan zehnində nə dərəcədə ikiləşmə əmələ gətirməsi hekayədə Draqonun həm həyat yoldaşından övladı olmasını istəməsi, həm də öz həmcinsinə qarşı hisslər bəsləməsində göstərilib. Cinsi orientasiyanın, transgenderliyin həm cəmiyyət müstəvisində həm də dində birmənalı şəkildə qarşılanmaması, sıxışdırılması tanrıya qarşı baş qaldırma şəklində öz əksini tapmışdır. Dövrün ciddi xəstəliklərindən olan bu vəziyyət ədəbiyyat və sənətin predmetinə çevrilir. Yazıçı belə bir vəziyyətin ekzistensiyasını, çıxılmazlığını göstərir.

"Eşqi hekayəyə çevirən mümkünsüzlük deyilmi, ay nənə?" hekəyəsində müəllif dəli qadının etdiyi dəliliklər fonunda yarım qalmış bir məhəbbəti, faciəvi sonla bitmiş bir eşqi göstərir. Qadının öz qızının həyatına dolayı yolla da olsa, son qoyması, sevən insanların öz eşqlərini yaşamalarına cəmiyyət və ya ailələr tərəfindən imkan verilməməsinin nəticəsini Minə Söğüt öz fərqli baxış bucağı ilə təqdim edir. Qadın qızının sevdiyi kişiyə qızı ilə bir-birlərini sevmələrinin imkansız olmasını deyərək qızının onu sevmədiyinə inandırıb manipulyasiya edir. Nəticədə, qızı cinayətə qurban gedir, qızını öldürən insan da intihar edir. Biz burada bir insanı manipulyasiya etməklə iki insanın həyatına son qoyulmasını, yarım qalmış faciəvi sonluğu olan bir münasibəti görsək də, əslində qadın cinayətləri, qadınların həyatlarını əllərindən alan cani insanlar tənqid edilir. Qadının onu sevmədiyinə inanıb bıçaqlayan, sonra da özünü öldürən bir insanın intellektual və psixoloji sağlamlığının olmaması təkcə bədii bir detal deyil, reallıqdır. Qadın cinayətlərinin hər zaman aktual məsələ olması insanlıq üçün üz qarasıdır və müəllif bunu cəmiyyət biganəliyi ilə yanaşı dini cəhətdən də tənqid edir. Şeytan və mələyin belə göz yumduğu günahlara, öldürülən, yaşamaq haqları əllərindən alınan qadınlara görə bir baş qaldırma, qəbullanmama hekayəyə hakimdir. Ölümün insanlar tərəfindən adi qarşılanması, yas mərasimlərindəki davranışların bir vərdiş halına çevrilməsinə tənqid də hekayədə mərkəzi yerlərdən birini tutur. Minə Söğüt postmodern ədəbiyyatın "açıq son" tezisini olduqca uğurlu bir şəkildə hekayələrinə tətbiq edir. Təhlil və tədqiq edilən hekayələr göstərir ki, yazıçı ən modern təhkiyə metodlarını yaradıcı bir üslubla sınaqdan keçirir. Bütün eksperimentləri isə uğurlu alınır. "Söğütün təhlil edilən hekayələrində giriş açıq sonla başlayıb son da açıq buraxılmışdır" [8, s. 117].

**Nəticə.**

Nəticə etibarilə deyə bilərik ki, Minə Söğüt "Dəli qadın hekayələri"ndə qadınlığın bədii proyeksiyası olaraq gözəllik, zəriflik, nəciblik, nəzakət duyğularını verir. Ancaq bu pozitiv duyğular birbaşa nəzərə çarpmır. Dəli olmuş, havalanmış qadınların hekayələrindəki neqativ vəziyyəti çoxqatlı və çoxsəsli sənət estetikası ilə minimalsit bir üslub və leksikonla nəql edir. Bu qədər ağır, məşəqqətli tale və ömürləri oxuyanları mənəvi təmizlənməyə çağırır. Hekayələrin zirvə nöqtəsi katarsisə çağırışdır. Tutaq ki, bu qadınlar cəmiyyətin normalarından kənar bir vəziyyətdədirlər. Belə olan halda, biz də onları həyatdan və toplumdan təcrid edə bilmərik. Hekayələrin pozitiv aurası burada işə düşür. "Dəli qadın hekayələri"nin tədqiqata cəlb edilməsi göstərdi ki, Minə Söğüt maksimal dərəcədə minimalist və prozaik bir üsluba malik yazıçıdır. Hekayələrin maksimal prozaikliyi ilə paralel şəkildə tetral, vizual bir performans və dramatik gərginlik də diqqəti cəlb edir. Minə Söğütün sənət estetikası az və sadə sözlə mümkün olan genişlikdə problemləri təqdim etməkdir. "Dəli qadın hekayələri"ndə qadınlıq və dəliliyin bədii proyeksiyası hər növ ziddiyyət və dialektik vahidləri gözəllik duyumu və estetik zövqə çevirmək istəyidir.

**Ədəbiyyat siyahısı**


1. Söğüt Mine. Deli Kadın Hikayeleri. İstanbul: Can Yayınları. 2022, 184 s.
2. Faucault Michel. Deliliğin Tarihi. Fransızcadan çevirən: Mehmet Ali Kılıçbay. İstanbul: İmge Kitabevi. 2017, 798 s.
3. Faucault Michel. Cinselliğin Tarihi. Fransızcadan çevirən: Hülya Uğur Tanrıöver. İstanbul: Ayrıntı Yayınları. 2007, 509 s.
4. Erasmus. Deliliğe Övgü. Çeviren: Çiğdem Dürüşken. İstanbul: Alfa Yayınları. 2020, 272 s.
5. Emine Güneş. "Deli Kadın Hikayeleri'nde Deliren Kadınlar" Fe Dergi 5, no. 2 (2013), 89-91 s.
6. Ecevit Yıldız. Türk Romanında Postmodernist Açılımlar. İstanbul: İletişim Yayınları. 2014, 240 s.
7. Çaha Havva, Aydın Sare A., Çaha Ömer. Değişen Türkiyede Kadın. İstanbul: Kadem Yayınları. 2014, 400 s.
8. Balcı Umut. Öykücü Yönüyle Mine Söğüt. Kültürlerarası Araştırmalar, Temmuz 2022, 109-137 s.


# TÜRK TARİXİ ROMANLARINDA DƏRVİŞ OBRAZI


**ARZU DADAŞOVA**
AMEA /Şərqşünaslıq İnstitutu
Türk filologiyası şöbəsi, elmi işçi
*Email: d.arzu@bk.ru*
BAKI, AZƏRBAYCAN



**XÜLASƏ**

Türklər İslam dinini qəbul etdikdən sonra da qədim adət ənənələrini davam etdirməyə çalışmışlar. İslamın qəbulundan sonra türk islam çizgilərinə uyğun qurulan türk dövlətlərindən biri də Səlcuq dövləti idi. XI əsrdə formalaşan Səlcuqlular İslam adətlərini və türk ənənələrini özündə cəmləyən idarəetmə forması yaratmışlar. Bəylikdən dövlətə və imperiyaya doğru inkişaf edən Osmanlı isə qədim türk və İslam adət-ənənələri ilə əvvəlki türk dövlətlərinin əsas xüsusiyyətlərini özündə cəmləşdirərək Anadolu Səlcuq dövlətinin təməlləri üzərində qurulmuş dövlətdir. 1242-ci ildə Monqol istilasından sonra Ahmet Yasəvinin müridləri Türkistandakı ocaqlarından ayrılaraq qərbi Anadoluya üz tutmaq məcburiyyətində qalırlar. Dərvişlərin məqsədi Anadoludakı tarixi ata-baba torpaqlarına geri dönərək buradakı siyasi istiqrarı təmin etmək, burda kök salmaq, yurd etmək, İslamı və mədəniyyəti yaymaq olmuşdur. İnsanların könlünə xitab etməyi bacaran dərvişlər böyük kütlələri yönləndirməyə qadir idilər. Davamlı olaraq oba-oba gəzdikləri, bir-biriləri ilə xəbərləşdikləri üçün coğrafiyadan, siyasətdən ehtiyaclardan xəbərdar olurdular. Beləliklə göründüyü kimi Monqol istilasından sonra Anadoluya üz tutan dərvişlər Səlcuq və Osmanlı dövlətinin qurulması, Anadoluda birlik və bərabərliyin təmin edilməsində xüsusi rola malikdirlər. Araşdırmada eyni dövrdən bəhs edən amma hadisələrə fərqli

yanaşma tərzinə malik üç yazıçının K.Tahir, T.Buğra və M.N.Sepetçioğlunun eyni dövrdən bəhs edən tarixi romanlarında dərviş obrazları, Osmanlı və Səlcuq dövlətinin yaranmasında onların rolu tədqiq edilmişdir. Işin aktuallığı ondan ibarətdir ki, türk tarixi romanlarında eyni dövrdən bəhs edən əsərlərdə türk cəmiyyətində dərvişlər, dövlətin yaranmasında onların rolu və vəzfələrinin araşdırılmamışdır. Tədqiqatda göstərilən problemlər araşdırılmış işə qısa nəticə ilə yekun vurulmuşdur.

**AÇAR SÖZLƏR:** Türk, ədəbiyiyat, tarixi roman, dərviş, Osmanlı, dövlət

**SUMMARY**

Even after accepting Islam, Turks tried to continue their ancient customs. After the acceptance of Islam, one of the Turkish states that established according to Turkish Islamic lines was the Seljuk state. The Seljuks, formed in the 11th century, created a form of government that incorporated Islamic customs and Turkish traditions. The Ottoman Empire, which developed from a principality to a state and an empire, is a state built on the foundations of the Anatolian Seljuk state, incorporating ancient Turkish and Islamic traditions and the main features of the previous Turkish states. After the Mongol invasion in 1242, the disciples of Ahmet Yasavi were forced to leave their homes in Turkestan and turn to Western Anatolia. The aim of the dervishes was to return to their historical ancestral lands in Anatolia, to ensure political stability, to take root here, to make a homeland, and to spread Islam and culture. Dervishes who were able to appeal to people's hearts were able to direct large crowds. Because they were constantly traveling from village to village, communicating with each other, they were aware of geography, politics and needs. As it can be seen, the dervishes who turned to Anatolia after the Mongol invasion had a special role in the establishment of the Seljuk and Ottoman states and in ensuring unity and equality in Anatolia. In the research, the dervish characters in the historical novels of K.Tahir, T.Bugra and M.N.Sepetçioğlu, which talk about the same period, but with different approaches to events, and their role in the creation of the Ottoman and Seljuk states were studied. The relevance of the work is that in Turkish historical novels, dervishes in Turkish society, their role and duties in the formation of the state have not been investigated in works about the same period. The problems indicated in the study are concluded with a brief conclusion of the researched work.

**KEY WORDS:** Turkish, literature, historical novel, dervish, Ottoman, state

## GIRIŞ

İlk dövrlərdə türklər Orta Asiyadan başlayaraq Ön Asiya, Orta Avropa və Balkanlara doğru böyük köçlər etmişlər. Asiya çöllərində oba-oba dolaşıb heyvanları üçün otlaq axtaran türklər müxtəlif tarixi dövrlərdə müxtəlif siyasi birliklər qurmuşlar. İslamın dininin qəbulundan əvvəl və sonra qərbə və cənuba doğru irəliləyən türklər müxtəlif şəkildə təşkilatlanıb siyasi və idarə sistemləri yaradaraq dövlət qurmuşlar. Bunlardan ən böyükləri Hun, Göktürk, Səlcuq və Osmanlı dövləti olmuşdur.

Türklərdə dövlət anlayışı türk tarixi ilə birgə yaranmışdır. Göktürklər milləti dövlətin qurucusu olaraq görmüşlər. Buna görə də millət arasından çıxan idarəçilər də milləti qorumaqla məsuliyyət daşımışdır. (Taneri, 1997, s. 433)

İslamdan əvvəlki türklərdə siyasi həyat dövlət və millətin əməkdaşlığına əsaslanırdı. Buna əməl edənlər güclü dövlət qura bilmişdir. Dövlətlə millətin əməkdaşlıq etməsində ailə, adət-ənənələr əhəmiyyətli rol oynayır. Türklərdə böyüyə hörmət, kiçiyə sevgi kimi dəyərlər dövlətin idarəetmə prinsipinə təsir etmişdir. Ailənin dayağı ata hesab olunduğu kimi dövlət də millət üçün ata hesab olunmuşdur. Türklərdə göy qübbəsi dövlətin, çadır isə ailənin örtüyü simvolu olaraq qəbul edilir. (Niyazi, 1996, s.25,) Türklərdə dövlətin yaranmasında dərvişlərin rolu böyükdür.

Səlcuq və Osmanlıda dövlətin qurulmasında ocaqların, dərgahların qurucu, birləşdirici rolunu xüsusilə qeyd etməliyik. Tədqiq olunan romanlarda Şeyx Ədəbalinin ocağı, Kumral Dedenin ocağı, Sarı Hocanın ocağı əsas birləşdirici rola malikdir. Ocaq ata babaların ruhunun toplandığı, odun yandığı, soyunun davam etdiyi yerdir. Ocaqın tüstüləməsi həyat göstəricisi, sönməsi isə soyun tükənməsi olaraq qəbul edilir. İnsan getdiyi hər yerə ocaq tanrısını da özüylə birgə aparır deyən fransız filosofu Baçelyar nə qədər də haqlıdır. (Korkmaz, 2007, s. 127) Birləşdirici olan bu atəş soyuqda istilik, qaranlıqda işıq, acanda yemək, qorxulu zamanda isə ümidi təmsil edir. Bu dərgahlarda xəstəsi, yaşlısı, gənci, yoxsulu, zəngini, dərvişi, şeyxi, müsəlmanı, qeyri-müsəlmanı bir tutularaq qonaq edilirdi. Görüldüyü kimi bu ocaqlar heç kimi ayırd etmədən hər kəsə qucaq açan və doyduran sığınaq olmuşdur. Roman qəhrəmanları eləcə də Osman bəy sıxıntılı zamanlarında bu ocaqları ziyarət edərək mənəvi rahatlıq tapmışlar.

Yəsi ocağının dərvişləri Orta Asiyadakı dərgahlarından aldıqları bu odu söndürmədən öz tarixi ata baba torpaqları olan Anadoluya gətirmiş, burada yenidən çoxaltmağa nail olmuşlar.

1242-ci ildə Monqol istilasından sonra Ahmet Yasəvinin müridləri Türkistandakı ocaqlarından ayrılaraq qərbi Anadoluya üz tutmaq məcburiyyətində qalırlar. Dərvişlərin məqsədi Anadoludakı tarixi ata-baba torpaqlarına geri dönərək buradakı siyasi istiqrarı təmin etmək, burda kök salmaq, yurd etmək, İslamı və mədəniyyəti yaymaq olmuşdur. İnsanların könlünə xitab etməyi bacaran dərvişlər böyük kütlələri yönləndirməyə qadir idilər. Davamlı olaraq oba-oba gəzdikləri, bir-biriləri ilə xəbərləşdikləri üçün coğrafiyadan, siyasətdən ehtiyaclardan xəbərdar olurdular.

Beləliklə göründüyü kimi Səlcuq və Osmanlı dövlətinin qurulması, Anadoluda birlik və bərabərliyin təmin edilməsində türk dərvişlərinin rolu danılmazdır. Saçlı Hoca, Sarı Hoca, Küpeli Hafız, Kumral Dede, Şeyx Ədəbali, Tapdıq Əmrə, Yunus Əmrə, Abdal Musa, Kaygusuz Abdal, Karaca Əhməd tədqiqata cəlb olunan romanlardakı dərviş obrazlarındandır. Aldıqları mənəvi təhsildən sonra geniş coğrafiyaya yayılan bu dərvişlər fiziki fəthdən əvvəl ərazidə mənəvi fəth həyata keçirərək fiziki fəthə zəmin hazırlamış olurlar. Dərvişlər sevginin, mərhəmətin gücüylə insanların qəlbinə yol taparaq onları yönləndirməyi bacarmışlar.

Eyni zamanda dini missiyaya sahib olan dərvişlərin cəmiyyət üzərindəki təsirini də gözdən qaçırmaq olmaz. Qədim türk birliklərindən də gördüyümüz kimi dini kimliyi ilə seçilən şəxslərə böyük hörmət, etibar və sevgi olmuşdur. “Konak” romanında Ədəbalının təkkəsində Sarı Saltukun bu sözləri diqqət çəkir: “Kaygusuz, oğlum Kaygusuz! Mənə yaxşı qulaq as mən öldükdə cəsədimi 6 yerə basdıracaqdın, 7 yerə basdır. Altısını bilirsən yeddinci də İznik olsun. Məzarımın İznikdə olduğunu eşidən, görən gəlib məni tapacaq. Məni tapan da bizim İznikə sahib olduğumuzu anlayıb, burada məskunlaşmağa başlayacaq. Cəsədim də torpağa sahib çıxar.( Konak) Sarı Saltukun bu sözləri insanların onları sevdiyinə, inandığına sübutdur. Türklərin hətta bu dərvişlərin özləri olmasa da məzarları olan yerdə də yurd salıb yaşaya biləcəklərini göstərir. Dərvişlərin məzarları da bu torpaqların türklərə aid olduğunu sübut etməyə kifayət edir.

**TƏDQIQAT METODU**

Tədqiqat zamanı müasir ədəbiyyatşünaslığın elmi-nəzəri müddəaları əsas götürülmüş, Türkiyə, Azərbaycan türkologiyasının müvafiq əsərlərinin təcrübə və nəticələrindən nəzəri fikirlərindən istifadə edilmiş, tarixi- müqayisəli metoddan istifadə edilmişdir.

**Tarixi romanlarda dərviş obrazı.**

M.N.Səpətçioğlunun tarixi romanlarında dərvişlərin qaynağı “Kilit” romanı ilə başlayır. Burada qəhrəmanlığın, sevginin, imanın, irfanın təmsilçisi olan Sarı Hoca və Küpeli Hafızı yetişdirənin Saçlı Hoca (Əhməd Yasəvi nəzərdə tutulur) olduğunu öyrənirik. Şagirdləri Sarı Hocanı belə xatırlayırlar: “Müqəddəs insandı. Torpaqları necə fəth etməyi, vətənə çevirməyi ondan yaxşı heç kim bilmirdi. Din adamıydı, döyüş adamıydı”. (Sepetçioğlu, 1988, s.116) Saçlı Hoca öz şagirdlərini Kınık boyu, Xarəzm, Urum, Erməni diyarı, Bizans olmaqla məmləkətin dörd bir yanına göndərir. Burada məqsəd sevgi, iman, mərhəmətin gücü ilə soyuq qəlbləri isidərək onların mənəvi fəthini reallaşdırmaq olmuşdur.

“Kilit” romanında türklərin Anadoluya və Balkanlara olan yürüşləri kilid simvolu ilə göstərilmişdir. Qarlı qış günü çadırda Sarı Hoca ilə kiçik Alpaslan dərs keçərkən Alpaslanın ətəyində gizlətdiyi, Sav Tekinin ona verdiyi kilid müəlliminin diqqətini çəkir və Alpaslan kilidi ona verməyə məcbur olur. Bu zaman çadıra girən Sav Tekinə kilidi uzadan Sarı Hoca “açmağı öyrətmədiyin kilidi uşağa vermə” deyərək kilidi ona qaytarır. (Sepetçioğlu, 1988, s.127) Sav Tekin nə qədər çalışsa da kilid açılmır. Kilidi yağlayır, daşla o yan bu yanına vurub, yumşaltsa da, onu açmağa müvəffəq olmur. Sarı Hoca türk bəyləri arasında birliyi təmin edəcək şəxsin Alpaslan olacağını bilirdi. Bu kilid həm Anadolunun qapılarını açan, həm də dövlət şüurunun əsasını təşkil edən dövlət birliyinin kilidi idi. Romandakı paslı kilid türklərin tarixi torpaqları olan Anadolunu yurd etməyə çalışan Səlcuqluların önündə maneə olan Bizansa işarədir.

Sarı Hoca onlara kilidi necə açacaqlarını söyləyir: “Kilidi açmaq üçün onu yağladın sağdan soldan yumşaltdın amma açılmadı. Təbii ki, açılmaz bunun “Bismillahı” hanı? Sav Tekin gücünə qüvvətinə güvəndiyi qədər ağlına da güvənməli və “Bismillah”ı da unutmamalıdır, burada igidlik kifayət etmir.” (Sepetçioğlu, 1988, s.) Bir yerdə Bismillah edib kilidi açmaq istədikləri zaman hay-haray qopur. Şahməliyin adamları tərəfindən basqına uğrayırlar.

Sarı Hoca kilidi dövlət bəyinə verərək onun yalnız müharibə ilə deyil, birlik, ağıl və imanla açılacağını söyləyir. Sarı Hoca Səlcuqlar arasında dövlət birliyini, paslı kilidin sağdan soldan döyülməsinin vacibliyini, kilidi açarkən Bismillah yəni iman olmadan ordunun mübarizəsinin nəticəsiz qalacağını izah edir. Ərənlərin şeyxlərin köməyi olmadan bir dövləti idarə etməyin, millət arasında birliyin təmin olunmayacağına işarə edir. Dövlət şüurunun əsasını "dövlət birliklə olur" şüarı təşkil edir.

Daha sonra Səlcuqlarla Qəznəvilər arasındakı Dəndənəkan döyüşü Səlcuqların qələbəsi ilə nəticələnir. Amma bu döyüşdə Sarı Hoca şəhid olur. Göründüyü kimi dərvişlər təkcə insanlar arasında İslam dinini, mədəniyyətini yaymaq, birlik və bərabərlik yaratmaq kimi vəzifələrlə yanaşı həm də, müharibələrdə döyüşüb, igidlik göstərmişlər. Sarı Hoca öldüyündə də Alpaslana kilidi xatırladaraq türk millətini dənizə çatdırmağı vəsiyyət edir.

Paslı kilid Dəndənəkan döyüşündə yarım açılır. Sarı Hoca ölməmişdən əvvəl bu kilidin açılmasının Alpaslanın əlində olduğunu xatırladır. Artıq Mərvdə Alpaslan sultan olub, uşaqlıqda ətrafına topladığı dostlarını bəy olaraq bir araya gətirib onlara paslı kilidi göstərir. Sarı Hocanın kilidi sağdan soldan döyərək yumlaşdıb, bismillahla açа biləcəklərini söyləyir. Alpaslan müəlliminin tövsiyyəsi ilə Bizansı zəiflədərək türklərin Anadoluya axınını başladacaq. Alpaslan əmrində olan bəylərə nizami ordu şəklində deyil, quldur dəstələri şəklində sağdan-soldan Bizansa hücum etmələrini əmr edir. Hər orduya özbaşına imiş kimi qalalara hücum edib, oranı talan edib, yağmalayıb geri çəkilmək vəzifəsi verilir. Hətta bəzi bəylərin Bizansın himayəsinə sığınmasını da istəyir. Beləliklə Bizansı türklər arasında birliyin olmaması, hər bəyliyin ayrı-ayrılıqda mübarizəyə qoşulduqlarına inandıraraq, ağıllı taktika ilə sağa sola dağılmış dəstələrin köməyi ilə Bizansın kilidini sağdan soldan döydükdən sonra Bismillah deyərək kilidi açmağı planlayaraq ona qalib gəlir.

M.N.Səpətçioğlunun "Kapı" romanında Anadolunun qapılarını aralamaq istəyən türklərin xaçlılarla mübarizəsindən bəhs olunur. Romanda "qapı" arzu olunan dövləti yaratmaqdır. Dövlət uğruna Süleyman şah, Məlikşah, Nizamül Mülk fəda edilmiş, dövləti təmsil edən qapı da çürümüşdür. Türklərin də taxta və ya dəmir qapı deyil, polad qapı arzulaması qalıcı dövlət yaratmaq istəklərindən irəli gəlir. Türklərin Xaçlılar üzərindəki qalibiyyəti onların həqiqətən də sağlam qapı inşa etdiklərinə sübutdur.

"Kapı" romanında rastlaşdığımız dərvişlərdən olan Karakurt Hafız Anadoluda yurd, vətən salmağın, buraları əbədiləşdirməyin bir yolunu da yerlərə verilən adlarda görür. O, yerlərə və fəth edilən torpaqlara türk adlarının verilməsinin vacibliyini qeyd edir. "Düşünün ki xaçlılar sizi burdan qovdu, uzaqlara getdik, gedərkən özümüzlə nə aparcağıq. Buraxıb getmək məcburiyyətində qalsan da o ad üçün mütləq geri dönəcəksən." (Sepetçioğlu, 2005, s.157-158). Romanın irəliləyən səhifələrində isə Karakurt Hafızin dilindən "Adı sənin olmayan sənin deyil" sözlərini də eşidirik. (Sepetçioğlu, 2005, s.305)

M.N.Səpətçioğlunun "Konak" romanında yer alan derviş obrazı isə Kumral Dededir. Romanda dövlət kiçik bir toxuma bənzədilir və bu toxumdan böyük bir çinar ağacı meydana gəlir. Kumral Dedenin özü ilə qurşağında gətirdiyi toxumları burda əkib becərir. Bununla yazıçı Anadoludakı mədəniyyətin köklərinin ta Orta Asiyaya qədər uzandığını vurğulamış olur. Kumral Dede Osmanlı bəyliyinin ətrafında güclü bir türk bəyliyinin və dövlətinin yaranması üçün çalışmışdır.

"Konak" romanında Ədəbalinin dərgahında keçirilən məşvərətdə Karaca Əhməd Anadolunun dörd bir yanından topladığı siyasi vəziyyəti nəql edir. Anadoludakı vəziyyətin heç də yaxşı olmadığını Y.Əmrənin bu sözləri təsdiqləyir: "Yenə şanıda pətəklər quruyub, arılar qaçıb. Şanı Anadolu, arı isə türkmənlərdir. Elə is bal hardadır? Pətək var ki bal da olsun. Men deyirəm ki, pətək parçalandı, Səlcuqdan bir xeyir qalmayıb artıq. Pətək çürüyübsə onun əvəzinə yeni pətək qoyub arıları uzaqlaşdırmamalıyıq. Vacib olan pətəyin düzgün seçilməsidir." (Sepetçioğlu, 2005, s.163)

Aydın olduğu kimi çürüyən pətək olaraq təsvir edilən Səlcuq dövrü başa çatmışdır, ona görə də yeni birliyin yaranmasının vacibliyi müzakirə olunurdu. "Konak" romanında Ədəbalinin "Hər birimiz türkmənə dediyimizi qəbul etdirən söz sahiblərindənik. Qərar verib toxum olaraq Qara Osmanı da seçsək bütün türkməni onun ardında divar kimi toplayarıq" sözləri yaranan yeni dövlətə kimin rəhbərlik etməsinə dərvişlərin qərar verdiyini göstərir. (Sepetçioğlu, 2005, s.111) Beləliklə Məşvərətin sonunda dərvişlərin qərarı ilə yeni pətək Kayı boyu və Osman seçilir. Bundan sonra Anadoludakı birliyi Osman Bəy və Kayı boyunun təmin edəcəyinə qərar verirlər. Ədəbali da Osmanı özünə kürəkən

seçməklə onun daha da güclənib etibar qazanmasına səbəb olur. Göründüyü kimi dərvişlər özlərini və eləcə də xalq onları maddi iqtidar sahiblərindən üstün görürdülər.

Romanda C.Rumi və Y.Əmrə hələ Osman gənc olarkən Səlcuq sarayının pilləkənlərində qarşılaşdıqda Mövlana Osmana gələcəyə dair bəzi işarələr vermişdir. "Dayanma Osman, burada gözləməyin əbəsdir, öz dövrünə, zamanına get" (Sepetçioğlu, 2005, s.93) deməklə lap əvvəldən Osmanın seçilmiş olduğunu, bəyliyin gələcəyinin Osmanla parlayacağını müjdələmiş olur.

M.N.Səpətçioğlunun "Çatı" romanı Osmanlı varlığının Anadoluda filizlənməsi kök salmasından bəhs edir. Romanın əsas mövzusu birlik və bərabərlikdir. Oturaq həyata keçməklə kadı, subaşı kimi yeni vəzifələr təyin edilir. Qapalı məkanlara keçidlə bərabərlik, ədalət kimi dəyərlərin önə çıxdığını müşahidə edirik. "Çatı" romanında Kumral Dede Ocağının yanındakı bazarda tatar, özbək, qırgız, konyalı, malazgirtli, hətta yunanların birlikdə ticarətlə məşğul olmuşlar. Bununla yazıçı fərqli dini və milli dəyərlərə sahib millətlərin birlikdə uyum içində yaşamasını Kumral Dədənin bağçasındakı eyni bağçada bitən qızılgül, yasəmən, bənövşə kimi güllərə bənzətmişdir.

M.N.Sepetçioğlu romanlarındakı dərvişlərdən Kumral Dədənin qurşağında Anadoluya gətirdiyi bitki və çiçək toxumlarını təkkəsinin kənarında əkməklə Yəsinin ruhunu, ətrini, vəzifəsini simvolik olaraq Anadoluya gətirir. Torpağa əkilən bu toxumlar türk millətinin Anadoluya kök salması, maddi və mənəvi onu vətənləşdirməsini göstərir. Türküstandan Anadoluya köç edən türklər burada yeni bir mədəniyyətin toxumlarını səpmiş olurlar. Böyük mədəniyyətlərin beşiyi olan Anadolu torpağı bu toxumlarla canlanıb şəkillənəcəkdir. Toxumlar kök saldıqca Osman bəyləşməyə, Anadolu vətənləşməyə aşirət isə dövlət olmağa doğru yol alır. Şeyx Ədəbali, Kumaral Dədə Osman Bəy öldüklərində isə toxum kimi torpağa düşürlər. Yazıçı bu toxumları Anadoluya gətirməklə qeyd edir ki, mədəniyyətimizin kökü Orta Asiyaya qədər uzanır və onları Anadoluda da davam etdirmək niyyətindəyik.

T.Buğranın "Osmancık" romanında dövlətin yaranmasında Ədəbalı, Uruz Derviş və Kumral Dedenin dergahları xüsusi əhəmiyyətə malikdir. Romanın əvvəlində Osmancığın keçirdiyi mənəvi dəyişimi və kamilləşməsi birbaşa Ədəbalının təsiri ilə olmuşdur. İlk görüşdüklərində Osmancığın ona qarşı çıxdığını öyrənən Ərtoğrul Qazi onu yanına çağırıb xəbərdar edir: "Ədəbalının tərəzisi doğru çəkir, bir dirhəm belə yanılmaz. Mənə qarşı çıx ona qarşı çıxma. Mənə qarşı çıxsan inciyərəm, ona qarşı çıxsan gözlərin baxmaz, baxsa da görməz olar. O, soyumuzun işığıdır. Bu dediklərimi də vəsiyyətim say unutma" deməklə Ədəbalının Osmanlı üçün nə qədər dəyərli olduğunu oğluna bildirmiş olur. (Buğra, 1995, s. 15)

T.Buğranın "Osmancık" romanında dövlətin yaranması çinar ağacı ilə simvollaşdırılır. Bundan başqa bəzi qaynaqlarda Ərtoğrul Qazinin gördüyü çinar simvollu yuxunu T.Buğra romanında Osmancığa gördürür. Osmancıq Edebalinin təkkəsində onunla görüşmək üçün gözlədiyi müddətdə yuxuda Edebalinin sinəsindən çıxan bir ayın öz sinəsinə girdiyini görür. Onun sinəsinə girən ay böyük bir çinar ağacı şəklində böyüyərək bütün dünyaya qol budaq atır.

Yuxuda Edebalinin sinəsindən çıxan on beş günlük Ay Malhun Xatuna, çinar simvolu isə onun quracağı dövlətə işarədir. Yuxunun digər vacib simvollarından biri də çinar ağacıdır. Ayın Osmancığın sinəsinə girdiyi yerdə yaranan istilikdən bir çinar fidanı əmələ gəlir. Burada dövlətin simvolu olaraq verilən bu çinar fidanı böyüyərək dörd bir yana qol budaq atan böyük bir ağaca çevrilir. Geniş yarpaqları və güclü gövdəsi olan çinar böyüklüyün simvoludur. İslamdan əvvəl türklərin inanclarında ağacın müqəddəs bir varlıq olaraq qəbul edilməsi çinarın qoruyucu missiyasından irəli gəlir. Burada dövlətin taleyi ilə çinar arasında əlaqə yaradılmışdır.

Osmancığın Ərtoğrul Qazinin otağında Bəy seçilməsi zamanı da nəsihət üçün ilk sözün Ədəbalıya verilməsi dərvişlərin dövlətin formalaşmasındakı əhəmiyyətli rolundan xəbər verməklə yanaşı xalq tərəfindən onlara verilən dəyəri də ortaya qoymuş olur. (Buğra, 1995, s. 125-126)

Romanda dövlətin yaranmasında xüsusi rolu olan dərvişlər birlik, bərabərlik, bütövlük yaratmaq kimi xüsusiyyətlərlə yanaşı həm də qurucu, abadlaşdırıcı missiyanı da yerinə yetirirlər. Beləki əsərdə Baştaşı ələ keçirən Osmancık şəhəri abadlaşdırmaq, hamamlar, məscidlər, bazarlar tikmək üçün Kumral Abdala verməsi Osmanlının yenidən qurulmasında dərvişlərin xüsusi rola malik olmasından xəbər verir. Beləliklə dərvişlər Anadoluda dövlətin qurulması, insanlar arasında birlik və bərabərliyin təmin olunması, islamın yayılmasında xüsusi rola malik olmuşlar. Dərvişlər bundan başqa Anadoluda türk mədəniyyətinin və sənətkarlığının yayılmasına da xidmət etmişlər. Işğal olunmuş torpaqların abadlaşdırılması, quruculuq işlərinin Kumral Abdala həvalə olunması bunun sübutudur.

Tədqiq olunan yazıçılardan yalnız K.Tahir marksist ideoloji yanaşmasına görə dərviş tipinə fərqli yanaşmışdır. Yazıçı Osmanlının yaranmasında dərvişlərin funksiyasını qəbul etsə də, Şeyx Ədəbalini sosial siyasi həyatdakı rolu digər romanlarla müqayisədə zəif təsvir olunmuşdur. Y.Əmrə isə dedi-qodu edərək gəzəyən ozan, dərvişləri isə diləngi, tiryək aludəçisi kimi təsvir etmişdir.

"Devlet Ana" romanında K.Tahir Osmanlı dövlət quruluşunun əsasən iqtisadi təməllərə bağlı olduğunu göstərməyə çalışmış, dövlət quruluşunda və inkişafında iqtisadi məsələlərin nə qədər mühüm olduğunu irəli sürmüşdür.

"Devlet Ana" romanında Ərtoğrul Qazı ömrünün az qaldığını bildiyi üçün ölmədən əvvəl Akça Koca onun vəsiyyətinə əsasən seçkilər keçirərək, xalqın dəstəyi ilə Osman Qazini bəy seçirlər. Bu vəziyyət türklərdə demokratiya tarixinin qədimliyindən, seçki sistemi və seçki azadlığından xəbər verir.

"Devlet Ana" romanında da Osmanlının bəylikdən dövlətə çevrilməsində Ahilərin roluna toxunulmuşdur.N Romanda Osman Bəy dərgaha Ahilər şeyxindən öyüd nəsihət deyil, öz istəklərini ona açıqlamaq, onu yola gətirmək üçün gəlir. Osman Bəy dövlətin böyüməsi və genişlənməsində Ədəbalidən dua deyil, sosial dəstək alır. Buna görə də romanda dövlətin yaranmasında dini qurucu deyil, dəstəkləyici və tamamlayıcı vasitə olaraq görürük. "Dövlət Ana" romanında Ədəbali daxili və xarici siyasətdən bixəbər kimi qarşımıza çıxır. Osmana nəsihət verməkistəyəndə onun siyasətlə bağlı ruhlandırıcı dəyərlərini, məqsəd və planlarını eşitdikdə səssizliyə qərq olur. Yazıçı romanda strategiya adamı ilə din adamını qarşılaşdıraraq, strategiyanın üstün olduğunu göstərmiş olur.

"Devlet Ana" romanında Osmanlının geniş coğrafiyaya yayılan bir dövlət olmasını Ədəbalı da yuxu motivi ilə müjdələmiş olur. "Osmancık"dan fərqli olaraq "Devlet Ana" romanında yuxunu Y. Əmrə görür və ətrafa yayır.

**NƏTICƏ**

Hər millət sahib olduğu dəyərlərini yaşadaraq gələcəyə addımlamaq və əbədi olmaq istəyir. Bunun əsas yolu bir vətənə sahib olmaq, bu torpaqlara öz nəfəsini üfürməkdir. Buna görə də istər Səlcuqların, istərsə də Osmanlının Anadoluya, ata baba torpaqlarına sahib çıxmaq üçün onların keçdiyi yollardan keçmək, su içdiyi bulaqlardan su içmək Bizansın əlinə keçən torpaqları geri qaytararaq buranı əbədi vətən etmək tədqiq olunan tarixi romanlarda türklərin əsas məqsədi olmuş və sonda buna nail olmuşlar.

Göründüyü kimi türklərin birlik və bərabərliyi istər dövlətin yaratmasında, istərsə də onun yadellilərin işğalından qorunmasında ən vacib faktordur. Buna Osmanlının yaranma dövründən bəhs edən romanlarda olduğu kimi, Milli mübarizə dövrü hadisələrində də şahid olmaq mümkündür.

T.Buğra və M.N.Sepetçioğlunun dərvişləri müsbət obrazlar olaraq göstərilsə də, K.Tahir onlardan fərqli olaraq dərviş obrazlarını mənfi planda təqdim etmişdir. T.Buğra və M.N.Sepetçioğlunun Yəsi ocağından Anadolaya gəlib buraları İslamlaşdıran, yurd edən, dərvişləri nə etdiklərini bilən, sosial siyasi hadisələrlə yaxından maraqlanan məsuliyyətlərini dərk edən, obrazlar olaraq qarşımıza çıxır. Bu kimi xüsusiyyətlərə sahib olan dərvişlər xalqın ürəyini fəth edərək onları daha yaxşı yönləndirməyə qadir olmuşlar. Mütəmadi olaraq dolaşan dərvişlər bir-birləri ilə xəbərləşdikləri üçün o coğrafiyanın sosial-siyasi vəziyyətindən xəbərdar olurdular. Üstəlik şəxsi ehtirasları, kinləri olmayan, təmkinli, səbrli obrazlar kimi təsvir olunmuşlar.

K.Tahir isə dərvişlərini "cavlak" adlandırılan, paltarsız gəzən, içki içib, tiryək istifadəçisi olan, dilənən, zorakılıq edən dərviş qrupundan seçilmişdir. K.Tahir T.Buğra və M.N.Sepetçioğlu kimi əsərində Edəbali obrazına xüsusi yer verməsə də onun saygınlığına qarşı çıxmamışdır.

T.Buğra və M.N.Sepetçioğlunun dərvişləri mənəvi yandan insanları ələ almaqla yetinməyərək, siyasi birliyi də göz ardı etməmişlər. Qılınc imanla birləşdiyində zəfər qazana bilər. Hər iki yazıçı əsərlərində ordudan əvvəl mənəvi fəthin gerçəkləşdirilməsi fikrini müdafiə etmişlər.

**ƏDƏBIYYAT SIYAHISI**

Buğra, T., (1995).Osmancık.
Korkmaz, R., (2007). Yeni Türk Edebiyatı, 1839-2000.
Mehmed, N., (1996). Türk Devlet Felsefesi,
Sepetçioğlu, M. N., (1988). Kilit.
Sepetçioğlu, M. N., (1973). Kapı.
Sepetçioğlu. M.N., (2005). Konak.
Sepetçioğlu. M.N., (1974). Çatı
Taneri, A., (1997). Türk Devlet Geleneği.
Tahir, K., (2004). Devlet Ana.

# İNGİLİS DİLİ

## İNGİLİS DİLİNİN AVSTRALİYA VARİANTININ SPESİFİK XÜSUSİYYƏTLƏRİ

**Nəzərli Fidan**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Filologiya fakültəsi
Xarici Dillər Mərkəzi
Fidanadu49@gmail.com
Bakı, Azərbaycan

**XÜLASƏ**

Hər bir dilin müxtəlif variantları ola bilər. Bu variantlar coğrafi ərazi, üslubi forma və ya danışıq dili xüsusiyyətlərinə görə fərqlənir. Belə ki, dilin hər hansı variantı ancaq müəyyən ərazidə işlənirsə və heç bir ədəbi normalara malik deyilsə, o, dialekt adlanır. Əgər həmin dil öz normalarını bu ərazilərdə müəyyənləşdirisə, ədəbi dilin bütün normalarına tabe olursa onda variant olma hüququ qazanır. İngilis dilinin bütün variantları isə ingilis dilinin ədəbi normalarını özündə əks etdirir.

Bildiyimiz kimi, dilin lüğət fondu dilin daxili imkanlarına, yəni dialektizmlərin ədəbi dil normasına çevrilərək dilə daxil olması hesabına, söz yaradıcılığının, alınma sözlərin dilə daxil olmasına görə və s. kimi müxtəlif vasitələrlə zənginləşə bilir. İngilis dilinin regional variantlarından ən çox yayılmışları isə Amerika, Kanada və Avstraliya variantlarıdır.

**AÇAR SÖZLƏR:** avstralizmlər, zelandizmlər, leksik-semantik cəhət

**ABSTRACT**

Specific features of the Australian variant of English

Each language may have different variants. These variants differ according to geographical area, stylistic form or spoken language characteristics. So, if any variant of the language is used only in a certain area and does not have any literary norms, it is called a dialect. Hoüever, that language defines its norms in these areas, if it obeys all the norms of the literary language, then it gains the right to be a variant. All variants of the English language reflect the literary norms of the English language.

As we know, the vocabulary of the language can be enriched by various means which depend on the internal capabilities of the language, i.e. due to the fact that dialectisms become literary language norms and enter the language, word creation, loanwords enter the language, etc. Among the regional variants of the English language, the most common are the American, Canadian and Australian variants.

**KEY WORDS:** Australianisms, Zelandisms, lexical-semantic aspect

### GİRİŞ

İngilis dilinin Avstraliya variantını tədqiq edənlərin, başqa sözlə desək, Avstraliyaşünasların tədqiqatlarına əsasən ingilis dilinin Avstraliya variantının Britaniya variantı ilə lüğət tərkibi cəhətdən, yəni leksik-semantik cəhətdən demək olar ki, bənzərlik yaratdığını görürük. Avstralizmlərə ən çox ədəbiyyatda, poetik əsərlərdə, folklor nümunələrində rast gəlmək olar. Buna misal olaraq, biz Ü.T.Qudicin (W.T.Goodge)–"The Great Australian Slangage" adlı əsərini göstərmək olar. Burada işlənən a dickin pitch to kid us, navk it, to nit it, prad or moke, joker or bloke, johnny, strap, trouble, plug, out of blooming graft, clobber vəs s. sözləri buna sübutdur (Goodge,1898). Belə ki, Qudic öz əsərində avstraliya ingiliscəsində olan bu sözlərin ardıcıl olaraq, lie – yalan danışmaq, stop it – dayandırmaq, fly – uçmaq, horse – at, casual acquaintance – təsadüfi görüş, policeman – polis, a thing obtained on credit – kreditlə götürülən əşya, conviction – ittiham, hitting man in fighting – savaşda və ya döyüşdə adamı vurmaq, lookin for employment – işçi axtarmaq, clothes – paltarlar kimi mənada işləndiyini göstərir (Goodge,1898).

Məlumdur ki, dilin lüğət tərkibinin inkişafına həm linqvistik, həm də ekstralinqvistik faktorlar təsir edir. Ekstralinqvistik faktorlara təbii-coğrafi mühit, sosial, iqtisadi, mədəni amillər və s. daxildir.

Avstraliyanın müstəmləkələşməsinin başlanğıcında əvvəllər görülməiş yeni varlıqların və hadisələrin adlandırılmasına ehtiyac çoxlu leksik yeniliklərin yaranmasına rəvac verdi. Avstraliya variantının tədqiqndə C. Beykerin "The Australian language" əsəri diqqət çəkir. Bu əsərdə geniş sosial-tarixi fonda ingilis dilinin leksikasında Avstraliya elementlərinin diaxronik təsviri verilib. C. Beykerin fikrincə, sözlər bu və ya digər anlam üzrə müəyyən sahəyə ona görə daxil olurlar ki, onlar bu anlam daxilində birləşə bilir. Eyni zamanda onlarda Avstraliya çalarlığı vardır. Məsələn, "ikinci dünya müharibəsi" anlamlı sahəyə 600 söz və ifadə daxil edilmişdir. Bunların əksəriyyəti hərbiyə aid leksikadır. Məsələn,

Woodpecker-Yanan pulemyot

Uncle Tom-feldmarşal Tomas (Baker, 1966).

Avstraliya variantında ilk öncələr hərbi termin kimi formalaşan bəzi leksik vahidlər sonralar avstraliyalıların danışıq dilinə keçmişdir.

Məsələn, nong, drongo, dill-axmaq, səfeh

To bludge-başqalarının hesabına (hərbidə "hərbi xidmətin çətinliyindən yayınmaq")

Bodgerhunnu-modabaz ( hərbidə heç nəyə yaramayan aciz hərbçi)

Hərbi texnologiyanı əks etdirən leksikadan danışıq dilində də işlənir:

cop this-hə, necədir? You wouldn`t read about it-xəbərin yoxdur.

Mine and Buckley`s-heç bir şans yoxdur

To be in strife-çətin vəziyyətə düşmək

To be right-Hər şey qaydasında olmaq

Are you right-hər şey yaxşıdır? (https://dictionary.cambridge.org).

Avstralizmlərin işlənməsi tezliyi yazılı və şifahi nitqdə müxtəlifdir. Danışıq dilində avstralizmlərin çəkisi daha artıqdır. Məsələn, bloke-oğlan; paddock-çəpərə alınmış sahə, wowser-başqalarının kefinə soğan doğramaq; və s. İşlənmə tezliyinə görə ən ümumi işlək ingilis sözləri ilə müqayisə edilə bilər. Avstralizmlər müxtəlif poetik əsərlərn folklor nümunələrinin xalq mahnılarının sözlüyünün özəyini təşkil edir (Crystal D. (2000).

İngilis dilinin Avstraliya variantına sözdəki ixtisarlar da xasdır. Belə ki, abo-aborigen, uni-university, speedo-epidometr, aussie-australian və s. kimi ixtisarları Avstraliya variantının leksikonunda aydın şəkildə müşahidə etmək olar. İxtisarların bir çoxunun tərkibində -ie və yaxud –y şəkilçisi qalır. Məsələn, aussie-avstraliyalı, bandy-bant (https://dictionary.cambridge.org).

Dilin ən çox hərəki və qeyri-sabit hissəsi olan leksikasının təsviri və tədqiqi həmişə çətin müəyyən olur. Bu, özünü lüğət tərkibinin ümumi xarakteristikasını və quruluşunu ədəbi və qeyri-ədəbi dil elementlərinin qarşılıqlı münasibətlərdə alınmaların rolunu və s. məsələləri araşdırarkən büruzə verir. İngilis dilinin Avstraliya variantının leksikasını tam mənada, əhatəli şəkildə araşdırmaq müəyyən obyektiv səbəblərdən hal-hazırda mümkün deyildir. Buna görə də bizim araşdırmalarımız Avstraliya ingilis dilinə həsr olunmuş əsərlərin verdiyi materiallar, lüğətlərdən seçilmiş materiallar, həmçinin Avstraliya yazıçılarının əsərlərindən götürülmüş nümunələr əsasında araşdırılır.

Araşdırmaçılar yazır ki, Avstraliya ingilis dilinin leksikasının tərkibində avstralizmlərin sayı 10.000-ə çatır. Müəlliflər bu sözlər arasına beynəlmiləl söz statusu almış "boomerang, kangaroo və s. bu kimi sözləri də daxil etmişlər. Flora və faunaya , toponomikaya aid çoxlu söz və söz birləşmələri diqqətdən kənarda qalmışdır. Nəzərinizə çatdıraq ki, Avstraliya materialı əsasında tərtib olunmuş toponomika lüğətlərindən biri 3000 –dən çox termin əhatə edir. Bundan əlavə yalnız bir ştatda –Qərbi Avstraliyada rast gəlinən yerli bitkilərin sayı 6000 –dən çoxdur. Bildiyimiz kimi, Avstraliya unikal materikdir. Bu materikin özünəməxsus flora və faunası var ki, bunlar da Avstraliya variantının yaranmasında böyük rol oynayırlar (Wierzbicka A. (1985).

Bununla yanaşı, Avstraliya variantında ərzaq, yemək və içki bölümünə də aid bir sıra özünəməxsus fərqlər aydın nəzərə çarpır. Məsələn, Barbie sözü britaniya variantında olan barbecue sözünün variantı hesab olunur. Belə ki, Barbie dedikdə avstraliyalılar bura kabab, steyk, sosis, qızardılmış balıq və s. də nəzərdə tuturlar. Yeri gəlmişkən, digər variantlarda rast gəldiyimiz sausages sözü avstraliya variantında snags adlanır.

Avstraliya mədədniyyəti və zövqünü nəzərə alsaq, məşhur olan şampan champagne və təbii ki, cabernet sauvignon uyğun olaraq, champers və Cab-Sav adlanır.

Səhər yeməyi breakfast sözünə isə avstraliya variantında brekky və ya brekkie kimi rast gəlinir.

Avstraliya variantında leksikoloji səviyyədə işlənən daha bir fərqli məqam isə Arvo sözüdür ki, bu da britaniya ingiliscəsində günorta, yəni, the afternoon mənasının verir. Hətta, avstraliya variantında buna aid maraqlı bir deyim də var. Buna aşağıdakı misalda nəzər salaq:

Saw Tommo at the pub this arvo, he must've been chucking a sickie" belə ki, bu Avstraliya deyimi, daha çox kiminsə özünü xəstə kimi birüzə verdiyində işlənir (https://www.babbel.com).

Avstraliya variantında işlənən bu ifadə isə daha çox dəmir içki qabını açmaq mənasını verir. Məsələn: Crack open a tinny. Aşağıdakı bu ifadəyə nəzər salaq.

A tinny is a can, while a stubby is a little bottle. You'll need to put them in an esky when you go camping or picnicking. It goes without saying that you'll then need to buy an entire slab so there's enough for everyone. You can buy everything from the bottle-o down the road ( https://www.babbel.com).

Bu ifadədə fərqləndirilmiş sözlər uyğun olaraq, britaniya ingiliscəsində cooler, crate/case, liquor store, yəni, sərin, içki kaseti, şərab evi sözlərinin variantı kimi işlənir.

İngilis dilinin digər variantları kimi ingilis dilinin Avstraliya variantı haqqında da alimlərin fikri bərabər deyil. Bəzi alımlər Avstraliya variantını "variant" kimi qəbul etsələr də, digərləri onu ayrıca bir dil adlandırır. Məsələn, Con Beyker özünün "Australian language" adlı əsərində Avstraliya variantını Avstraliya dili kimi qələmə versə də ondan fərqli olaraq, S.J. Baker "Good Australian English" və "The English Language in Australia and new Zeland" kimi əsərlərində Avstraliya ingiliscəsinin ingilis dilinin bir variantı olduğu qənaətinə gəlir. O, bu fikrinə əlavə olaraq, Avstraliya variantının da ingilis dilinin digər variantlarından fərqlənmədiyini də qeyd edir (Baker, 1966).

İngilis dilinin Yeni Zelandiya variantını isə, başqa sözlə desək, yeni zelandizmləri Qerner bu cür fərqləndirir: snitch – dislike (bəyənməmək), fel kimi to snitch – betray (xəyanət etmək), get the priker – get annoyed (təngə gəlmək), drag the chain – be a slow worker ( astagəl olmaq) və s. (Turner, 1966).

**TƏDQİQAT METODU**

Məqalədə ingilis dilinin məhz avstraliya variantından və bu variantlığın struktur-semantik tiplərinin müəyyən edilməsi, digər variantlarla fərqli və oxşar cəhətlərinin araşdırılır. Burada tədqiqat materialının xarakterinə və araşdırmanın məqsəd və vəzifəsinə uyğun olaraq, bir sıra linqvistik metodlardan - ümumiləşdirmə, sistemli və kompleks yanaşma, təsvir, qarşılaşdırma-tutuşdurma, yeri gəldikcə müqayisə metodlarından istifadə olunmuşdur.

**NƏTİCƏ**

Avstarliya variantı üzərində tədqiqatlar göstərir ki, Avstraliyanın dil şəraiti isə daha unikal xarakter daşıyır, yəni, ingilis dilində Avstraliya elementlərini müəyyən anlamları əhatə edən qruplar daxilində birləşdirmək mümkündür. Müəyyən ictimai maraq doğuran və yaxud maddi həyatda əsas rol oynayan spesifik və milli olan nə varsa hamısı öz əksini dilin leksikasında tapır. Axırıncı onilliklərdə gedən ictimai inkişafın əsas istiqamətlərini nəzərə alaraq Avstraliya elemaentlərinin ingilis dilinin leksikasında maksimum toplandığı sahələri müəyyən etmək olar. İngilis dilinin digər variantları kimi Avstraliya variantı haqqında alimlərin fikri isə heç də həmişə üst-üstə düşmür. Bəzi alımlər Avstraliya variantını "variant" kimi qəbul etsələr də, digərləri onu ayrıca bir dil adlandırır. Təbii ki, bu da çox yanlış bir yanaşmadır. Avstraliya ingiliscəsi də digər variantlar kimi "Standart English"dən qaynaqlanır. Onun bazası üzərində pərvəriş tapır. Avstraliya variantını ana ingiliscədən-Britaniya ingiliscəsindən fərqləndirən əsas amil özünü əsasən leksik qatda göstərir.

**ƏDƏBİYYAT SİYAHISI**

Abdulla K. (2010) Dilçiliyə səyahət. Bakı: Mütərcim, 196 səh.

Axundov A. (1973) Ümumi dilçilik. Bakı:, 260 səh.

Baker S.J. (1966). The Australian Language. Melbourne, 44-85 p

Crystal D. (2000) The Cambridge Encyclopedia of Language. 499 p.

Əliyeva A. (2017) Variativlik dilin dinamik xassəsi anlamında// İpək yolu, No.2, səh.209-213

Goodge W.T. (1898) ,The Great Australian Slangage , 89-97 p

Turner G. (1966) "The English Language in Australia and New Zeland. London, 236 p.

Wierzbicka A. (1985) Different Cultures, Different Languages,Different Speech Acts// Journal of Pragmatics, ,v.9,p.145-178

https://dictionary.cambridge.org/dictionary/english/estuary-english

https://www.babbel.com/en/magazine/21-essential-australian-expressions
Varieties of English: Canadian English. Arizona University
www/ic/Arizona/edu/Isp/CanadianEnglish/html
wn.com/American_and_English_spelling_difference.part 1.28february2010
www. English-for-students-com vocabulary-professions.html
www.ecenglish.com/learinglish/lessons/expressions
www.the canadianencyclopedia.com/articles/folklore

# İNGİLİS DİLİNDƏ LEKSİK BİRLƏŞMƏLƏRİN TƏDRİSİNDƏ QARŞIYA ÇIXAN PROBLEMLƏR

**Həsənova Səmayə**
Bakı Slavyan Universitetinin magistrantı
e-mail: samaya_hasanova_86@bk.ru
BAKI, AZƏRBAYCAN

**XÜLASƏ**

Məqalənin əsas obyekti ingilis dilinin leksik ifadələrinin tədrisi zamanı qarşıya çıxan problemlərin tədqiq edilməsi və onların həlli yollarının ümumiləşdirərək göstərilməsidir. İngilis dili nitq bacarıqlarının xüsusi elementi olan kombinarotikanın və ya sözlərin birləşmə xüsusiyyətlərinin öyrənilməsi və bu istiqamətdə bacarıqların formalaşdırılması olduqca əhəmiyyətlidir. Söz və söz birləşmələrindən düzgün istifadə etmədən ingilis dilində səlis və düzgün nitq fəaliyyəti qurmaq mümkün deyildir. Məqalədə kommunikativ yanaşma ilə söz və söz birləşmələrinin nitq prosesində tətbiqinin formalaşdırılması araşdırılaraq bir sıra tezislər irəli sürülmüşdür.

**AÇAR SÖZLƏR:** ingilis dili, söz, leksik ifadə, vahid, metod, öyrənənlər, birləşmə, tədris, kommunikativ

**SUMMARY**

The article is devoted to the study of education of English lexical units and phrasal. The main goal of the study is to find out ways of effective teaching of words and phrasal while defining appropriate methods of teaching words and words combination in written and oral speech. Teaching word combination and proper use of words and phrases are utmost importand. Witout proper applying words and words combination in the English language it is not possible to achieve in productive written or oral speech in English. In the article, communicative teaching of word combinations and phrasal are studied and some outcomes are proposed in the end.

**KEY WORDS:** the English language, words, lexical expressions, unit, method, learners, combination, training, communicative

**РЕЗЮМЕ**

Статья посвящена изучению образования английских лексических единиц и фразеологизмов. Основная цель исследования – выяснить способы эффективного обучения словам и фразеологизмам при определении соответствующих методов обучения словам и словосочетаниям в письменной и устной речи. Обучение словосочетанию и правильному использованию слов и фраз имеет первостепенное значение. Без правильного применения слов и словосочетаний в английском языке невозможно добиться продуктивной письменной или устной речи на английском языке. В статье исследовано коммуникативное обучение словосочетаниям и фразеологизму и в конце предложены некоторые результаты.

**КЛЮЧЕВЫЕ СЛОВА:** английского языка, слова, лексические выражения, единица, метод, учащиеся, комбинация, обучение, коммуникативный

Müasir təlim-təhsil texnologiyalarınn tətbiqi ilə ingilis dilinin tədrisinə dair metodiki ədəbiyyatlarda leksik birləşmələr probleminə daha çox diqqətin ayrıldığını müşahidə etmək mümkündür. Bu maraq, leksikanın daha çox kommunikativ formada öyrənilməsinə, başqa sözlə, kommunikativ prosesdə sözləri digər sözlərlə düzgün formada kombinə etmə məsələsinə diqqətin artması ilə izah oluna bilər. Leksik birləşmələr problemi üzərində araşdırma aparan tədqiqatçılar onun həllinə müxtəlif aspektlərdən yanaşırlar. Leksik birləşmə probleminə gəldikdə nitq fəaliyyətinin yaranması, kombinatorika anlayışının linqvistik və psixoloji xüsusiyyətlərinin aşkar edilməsi, eləcə də, sözlərin digər sözlərlə birləşərək nitq prosesində leksik birləşmələr yaratmasını təmin edən şərtlərin təyin edilməsi və leksik birləşmələrinin linqvistik xarakterini göstərən çətinlik kateqoriyalarını nəzərə almaq baxımından bir neçə yanaşmanın mövcud olduğunu qeyd etmək olar [11].

Nitq prosesinin yaranma formalarının nəzərdən keçirilməsi belə bir fikrə gəlməyə əsas verir ki, ingilis dili tədrisinin ilkin mərhələsində dil öyrənənlərdə nitq prosesinin formalaşması, dildəki leksik vahidlərin birləşdirilməsi üçün bacarıqlar hələ ki, formalaşmamış şəkildə olur.

Elmi-nəzəri fikirdə kommunikativ məqsədlər üçün leksik vahidlərin axtarışı, seçilməsi və onların kombinə edilməsi üçün xüsusi və məqsədyönlü bacarıqların formalaşdırılmasının zəruriliyi vurğulanır. Leksik vahidlərin düzgün seçilərək kombinə edilmə bacarıqları yalnız o zaman formalaşa bilir ki, söz assosiativ xüsusiyyətlərə sahib olsun. Bununla əlaqədar olaraq, öyrənilən dil vahidlərin dil öyrənənlərin nitq fəaliyyətinə mümkün qədər tez daxil edilməsi məqsədəuyğun hesab olunur. Əhəmiyyət kəsb edən fakt ondan ibarətdir ki, leksik birləşmələri nitq prosesinin yaranma mövqeyindən nəzərdən keçirən tədqiqatçılar xarici dildə sözlərin seçilməsi və kombinə edilməsinə dair bacarıqların formalaşdırılması və bu bacarıqların dil öyrənənələrin nitq prosesində formalaşdırılmasının kifayət etmədiyini qeyd edirlər. Buradan belə bir qənaətə gəlmək olar ki, sözlərin düzgün seçilməsi bacarıqlarının formalaşdırılmasına olan qanunauyğun yanaşma tərzi bu və ya digər vahidlərin seçilməsini müəyyənləşdirən semantik əlamətlərin üzvlənməsindən ibarətdir.

Söz seçimi ilə bağlı olan bacarıqların formalaşdırılması ilə bərabər olaraq nitq prosesinin yaranması zamanı ingilis dilindəki sözləri bir-biri ilə birləşdirmə, kombinə etmə bacarıqları da vacib əhəmiyyət kəsb edir.

Həmçinin qeyd olunmalıdır ki, leksik birləşmələrin araşdırılmasına nitq prosesinin əmələ gəlməsi mövqeyindən yanaşma və kombinə etmə anlayışının açılması təkcə sözlərin düzgün formada birləşdirilməsinə dair bacarıqların formalaşdırılmasına istiqamətlənmiş çalışmaların yerinə yetirilməsini zəruri etmir, eyni zamanda sözlərin birləşmə imkanlarının nəticəyönümlü formada tədqiqini şərtləndirir.

Leksik birləşmələrin tədrisi problemi dil öyrənənlərə xarici dildə nitq qabiliyyətinin formalaşdırılması metodikasının ümumi məsələləri sırasına daxildir. Bu da onunla izah edilir ki, məhz leksik vahidlərdən istifadə edə bilmə imkanları yaradıcı nitq qabiliyyətinin formalaşmasına şərtləndirə bilər

Leksik vahid və birləşmələr seçimi ilə bağlı olan bacarıqların formalaşdırılması ingilis dilində nitq fəaliyyətinin yaranmasında mühüm əhəmiyyət kəsb edir. Leksem və leksik birləşmələrin kateqorial davranışı, onların digər sözlərlə əlaqəsi və birləşmə imkanları ingilis dilində planlı və ardıcıl iş sayəsində mümkündür [1].

L.Z.Yakuşina leksikanın mənimsənilməsi üçün əsas tələblərdən birinin sözləri kombinə etmək bacarığının olduğunu qeyd edərək, leksik vahidlərin semantik xüsusiyyətlərinə, digər sözlərlə məna münasibətlərinə, onun morfoloji və sintaktik formasına əsaslanmaqla söz birləşməsi vasitəsilə cümlə tərkibinə daxil olduğundan, sözlərin leksik, morfoloji və sintaktik birləşmələrini qeyd edir. O, leksik vahidlərin mənimsənilməsinə dair çətinlikləri 2 yerə bölür:

1) leksik vahidlərin mənsub olduğu nitq hissəsinin xüsusiyyətləri ilə bağlı;
2) leksik vahidlərin mənası və onun müəyyən sözlərlə birləşə bilmək imkanları [2].

V.T.Mamiçeva leksik vahidərin metodiki tipologiyasını bir qədər fərqli mövqedən təqdim edir[3]. Sintaktik strukturlarda müxtəlif baxışlardan şərh edilən L.Tenyerin nəzəriyyəsinə əsaslanan müəllif, leksikanı mövqe əlamətlərinə və rus dilində isimlərin strukturu və fellər (valentliliyinə və birləşmə imkanlarında mövcud fərqlərə və uyğunluq əlamətlərinə əsasən), eləcə də, sifətlərlə birləşmə imkanlarına istinad etməklə təklif edir. Onun üçün əsas maraq kəsb edən məsələ xarici dildəki leksik vahidlərin dil öyrənənlər üçün doğma dilindəki ekvivalentləri ilə müqayisə etməklə, eləcə də, onların digər sözlərlə işlənməsini və xüsusiyyətlərini nəzərə alan təsnifatın təqdim olunmasıdır.

Leksik vahidlər probleminə dair daha geniş yayılmış yanaşmalardan biri də xarici və doğma dillərdəki müvafiq sözlərin semantikasının müqayisə olunmasından ibarətdir. İngilis dili öyrənənlərə ana dildəki müvafiq sözdən fərqli olaraq ingilis dilindəki sözə mənsub olan məna haqqında məlumat verilir. Bu zaman hər bir leksik vahidin onun üçün spesifik olan digər sözlərlə birləşmələri verilməklə yanaşı, onların funksional xüsusiyyətləri nümayiş etdirilir.

Bəzi filoloqlar xarici dildəki sərbəst və sabit söz birləşmələrini iki qrupa ayırırlar:

1) qavranılması öyrəncilər üçün xüsusi cəhd tələb etməyən, "many books, a beautiful girl, a good picture" və s;

2) doğma və xarici dildə sözlərin işlənmə məqamlarının üst-üstə düşməsi ilə əlaqədar çətinlik törədən söz birləşmələri - lonely business, big argument, big affair, to take to smb. Və s..

Xarici dil fakültələrində leksik ifadələrin tədrisi üçün söz birləşmələrinin metodiki tipologiyası T.N.Lyapina və E.F.İvanova təqdim etmişdir. Leksik vahidlərin dildaxili və dillərarası interferensiyasını nəzərə almaqla, yaradılmış metodiki tipologiyası E.F.İvanova tərəfindən verilmişdir. Hər iki müəllif daxili interferensiyanı nəzərə almaqda sözləri və söz birləşmələrini 2 qrupa ayırırlar:

1) müəyyən qaydalarla əlaqədar ingilis dilinin artıq mənimsənilmiş hadisələri ilə üst-üstə düşməyən söz və söz birləşmələri -to arrive in, at; to leave for;

2) mənimsənilmə çətinlikləri dillərarası interferensiya ilə izah olunan söz birləşmələrinə isə müəllif semantik cəhətdən uyğun gəlməyən söz birləşmələri [4, 6-7]. T.N.Lyapina xarici dil fakültəsində mənimsənilməsi nəzərdə tutulan leksik vahidləri A və B yarımqruplarına ayırır:.

A) tələbə tərəfindən doğma dildəki sözlərlə tələffüz və ya ingilis və rus dillərində sözlərin yazılışı istiqamətində uyğunluğuna əsasən qavranılan xarici dil sözləri - radical;

B) ingilis dilinin əvvəllər öyrənilmiş sözləri ilə uyğunluq əsasında anlaşılan sözlər - attack.

İngilis və Azərbaycan dillərində müqayisəli şəkildə aparılan araşdırmalara gəldikdə, burada O.İ.Musayev, Z.N.Verdiyeva, N.A.Ələkbərovanın [5; 8; 9] tədqiqatlarını qeyd etmək lazımdır. Belə ki, Z.N.Verdiyeva müasir ingilis və Azərbaycan dillərində sifətlərin semantik kombinatorikasının müqayisəli təhlilini aparmaqla, burada olan ümumi və fərqli cəhətləri araşdırmışdır. N.A.Ələkbərova müasir ingilis və Azərbaycan dillərində "iş, əmək" anlayışını bildirən söz və söz birləşmələrinin semantik təhlilini aparmışdır. Əldə edilmiş nəticələr ingilis dilini öyrənən azərbaycanlı dil öyrənənlərin rast gələ bildiyi çətinlikləri öncədən müəyyənləşdirmək və onların qarşısını almaq imkanını yaradır.

Leksik vahidlərə dair aparılmış araşdırmaların ümumi mənzərəsindən göründüyü kimi, tədqiqatçılar çox vaxt sabit və sərbəst söz birləşmələrinin tədrisini fərqləndirmirlər. Bu cür fərqləndirmənin aparılması məqsədəuyğun olardı. Çünki sabit söz birləşmələri dilə, sərbəst söz birləşmələri isə nitq məfhumuna aiddir. Sərbəst və sabit söz birləşmələrinin fərqliliyi onunla izah olunur ki, sabit söz birləşmələri dildə hazır şəkildə mövcud olduğu halda, sərbəst söz birləşmələri nitq prosesində formalaşır və hazır şəkildə mövcud olmur. Sözlər nitq prosesində ona görə birləşir ki, həmin sözlərin ifadə etdikləri anlayışlar bir-biri ilə birləşir. Bu səbəbdən B.V.Belyayev söz birləşmələrini tədris edərkən söz birləşmələrindən anlayışlara deyil, anlayışlardan söz birləşmələrinə keçməyi təklifini irəli sürür. Çünki, söz birləşmələrinin əsasında həmişə sözlərin ifadə etdikləri anlayışların uyğunluğu dayanır. Əgər anlayışlar qavranılırsa, hansı anlayışların bir-biri ilə birləşə bildiyi, hansılarının isə birləşmədiyi tamamilə aydın olur.

Sözlərin birləşmə imkanlarına anlayışların açılması mövqeyindən yanaşan müəlliflərə S.K.Folomkina, Z.M.Tsvetkova da aiddir [6]. Belə ki, hesab edilir ki, "heavy rain" və "şiddətli yağış" birləşmələrini müqayisə edərkən, danışanda müxtəlif anlayışlar formalaşır: azərbaycanlılar yağışı gücünə, ingilislər isə ağırlığına və intensivliyinə görə qiymətləndirirlər. Azərbaycan dilində "heavy rain" söz birləşməsinin ekvivalenti olan "şiddətli yağış" birləşməsində yağışın gücü və intensivliyi vurğulanır.

Sabit və sərbəst söz birləşmələri leksik vahidlərin dildə işlədilməsinin əsasını təşkil etdiyindən onların öyrənilməsinin zəruriliyini qeyd edən S.K.Folomkina leksik vahidlərin dərk olunması, yadda saxlanılması və yada salınması ilə bağlı 3 mərhələdə tədrisinin konkret yollarını təqdim edir [6, 22]. O, dərk olunma mərhələsində leksik vahidlərə dair çalışmaların aşağıdakı növlərini təqdim edir:

1) ana dilində ekvivalentlərin seçilməsi;
3) ingilis dilindəki leksik vahidlərin ana dilinə tərcümə edilməsi;
4) ingilis və doğma dildə sözlərin birləşmə imkanlarının müqayisəsi;
5) cümlələrin təhlili və s.

Yadda saxlama mərhələsində aşağıdakı növ çalışmalar yerinə yetirilir: buraxılmış yerlərin doldurulması, tərcümə, əvəzləmə, müvafiq söz seçimi. Yada salma mərhələsində müəllimin suallarına cavab verilir, təklif olunan leksik vahidlərdən istifadə etməklə situasiyalar yaradılır.

Sabit birləşmələrin tədrisi yollarını nəzərdən keçirərkən biz bir-biri ilə birləşən sözlərin ifadə etdikləri anlayışların açılmasına əsaslanan yanaşma tərzini deyil, sabit birləşmənin tərkib hissələrinin ümumilikdə ifadə etdiyi vahid mənanı əsas götürürük. Tamamilə aydındır ki, tədrisin bütün məqsədyönlü yolları xarici dil bacarıqlarının yaradılması üzrə işin ən vacib tərkib hissələrindən olan çalışmalar sistemi işləyib hazırlamağı tələb edir.

Sərbəst söz birləşmələrinin tədrisinin növbəti prinsipi bu və ya digər dilin kommunikasiya prosesində malik olduğu qaydalara əsasən ayrı-ayrı komponentlərdən təşkil olunan kifayət qədər mürəkkəb forma kimi çıxış edən söz birləşmələrinin təbiətinə əsaslanan psixoloji genişlənmə prinsipidir. Bu xarakterik xüsusiyyətlər söz birləşməsini "cümlənin məna həcminin genişlənməsi" vasitəsinə çevirir" [12, 33].

Ingilis dili dərslərində tədris proqramlarında qoyulan əsas məqsədlərdən biri dil öyrənənlərə bu dildə kommunikativ səriştənin inkişaf etdirilməsidir. Kommunikativ bacarıqların əsasını formalaşdıran linqvistik və qrammatik materiallardan istifadə bacarıqlarını şərtləndirən başlıca faktorlardan biri öyrənilən dildə mövcud olan normalara uyğun formada leksik vahidləri kombinə edə bilmək bacarığıdır.

Leksik birləşmələrin tədrisi kifayət qədər mürəkkəb bir məsələ olduğundan, bunun həlli sahəsində addımlar ingilis dili tədrisinin ilin mərhələlərindən başlanmalı, tədricən mərhələli və tədrisin bütün pillələrində sistemli formada davam etdirilməlidir. Qeyd olunmalıdır ki, ingilis dilinin tədrisi zamanı hansı növ leksik birləşmələrin daha çətin olduğunu müəyyən etmək elə də asan bir məsələ deyildir. Məsələn, feli birləşmələrin çoxunun həm struktur, həm də semantik baxımından ingilis dilini öyrənənlər üçün çətin olduğu artıq bir fakt kimi qəbul olunur. Eləcə də ismi birləşmələrin də öyrənilməsi kifayət qədər çətin bir prosesdir.

İngilis dilində nitq prosesinin formalaşdırılması təliminə həsr olunmuş çoxlu dərs vəsaitləri mövcuddur. Onlardan "Cutting Edge", "Break through" və s. Dərs vəsaitlərini göstərmək olar [13]. Bu dərsliklərin proqram tələblərinə nə dərəcədə uyğun olub-olmamasını müəyyənləşdirmək məqsədi ilə onları leksik birləşmələrin tədrisi təhlili baxımından nəzər yetirsək, şahidi olarıq ki, ingilis dili öyrənənlərdə bu dildə leksik birləşmələrin istifadə etmək bacarığının formalaşdırılması baxımından həm kəmiyyət və həm də keyfiyyət baxımından qənaətbəxş deyildirlər. Təcrübə və keçirilən müəyyənedici eksperimentin təhlili onu göstərir ki, tələbələr tərəfindən törədilən səhvlərin böyük əksəriyyəti məhz sərbəst söz birləşmələri səviyyəsində edilir. Bu dərsliklərdə verilmiş çalışmaların böyük bir qismi qrammatik xarakterli çalışmalardır. Şərti-nitq xüsusiyyətli tapşırıqların sayı isə dil öyrənənlərdə leksik birləşmələrin istifadə edə bilmə qabiliyyətlərinin formalaşdırılması bacarığının inkişaf etdirilməsi üçün yetərli sayılmaya bilər. Bu kimi dərsliklərdə leksik birləşmələrin kommunikativ nitq prosesində tətbiq edilməsinə yönəldilmiş nitq çalışmalarının azlığı ingilis dili öyrənənlərdə aidiyyəti bacarıqların tədrisini çətinləşdirir.

Qeyd olunmalıdır ki, ingilis dilinin leksik birləşmələrinin tətbiqi zamanı buraxılan səhvlərin böyük əksəriyyəti Azərbaycan dilinin təsiri altında baş verir. Təbii ki, yuxarıda qeyd olunan dərsliklər kimi vəsaitlər ölkəmizdən xaricdə tərtib və nəşr olunduğu üçün bu kimi dərsliklərdə azərbaycanlı dil öyrənənlərin ana dilinin nəzərə alınması mümkün deyildir.

Leksik birləşmələrin öyrədilməsi kifayət qədər mürəkkəb bir məsələ olduğundan, onun həlli istiqamətində atılan addımlar ingilis dili tədrisinin ilkin mərhələsindən başlanmalı, tədricən məqsədyönlü, mərhələli, asandan çətinə doğru istiqamətləndirilməli və dil tədrisinin növbəti pilləsində sistemli şəkildə davam etdirilməlidir. Burada əsas diqqət potensial problem mənbəyi olan söz birləşmələrinə yönəldilməlidir. Onu da qeyd etmək lazımdır ki, azərbaycanlı tələbələr üçün hansı növ sərbəst söz birləşmələrinin daha çətin olduğunu müəyyən etmək elə də asan bir məsələ deyil. Feli birləşmələrin böyük əksəriyyətinin həm struktur, həm də semantik cəhətdən azərbaycanlı tələbələri üçün çətin olduğunu danılmaz bir fakt kimi qəbul edərək, bəzən sərbəst söz birləşmələrinin digər

növlərinin də, o cümlədən ismi söz birləşmələrinin mənimsənilməsinin də kifayət qədər problemli məsələ olduğunu vurğulamaq lazımdır.

Sözlərin birləşmə imkanlarının tədris vahidi kimi N.N.İvanovanın irəli sürdüyü "qrammatik cəhətdən bitkin şəklə salınmış və kommunikativ vahid kimi çıxış edən cümlə strukturunun kommunikativ blokunu" [14] əsas götürmək məqsədyönlü olardı. Ona görə ki, kommunikativ blok dil öyrənənlərə tədrisin ilkin mərhələsində bir blokdan istifadə etməklə, kommunikativ fəaliyyətdə iştirak etmək imkanı yaradır.

Leksik birləşmələri istifadəsi blokun genişləndirilməsi hesabına cümlənin struktur blokunda həyata keçirilir. Başqa sözlə desək, leksik birləşmələrin tədris vahidi kimi əsasında cümlə strukturunun kommunikativ bloku dayanır. Kommunikativ blokların tətbiqi eyni zamanda ingilis dilinin tədrisində irəli sürülən prinsiplərdən biridir.

Leksik birləşmələrin tədrisinin digər prinsipi bu və ya digər dilin kommunikasiya prosesində malik olduğu qaydalara əsasən ayrı-ayrı komponentlərdən təşkil olunan kifayət qədər mürəkkəb forma kimi çıxış edən leksik birləşmələrin xarakterinə əsaslanan psixoloji genişlənmə prinsipidir [15]. Bu kimi xüsusiyyətlər söz birləşməsini "cümlənin məna həcminin genişlənməsi" vasitəsinə çevirir" . Bu baxımdan, sözlərin birləşmə imkanlarının leksik birləşmələrin tədricən genişləndirilməsi və mürəkkəbləşdirilməsi yolu ilə ingilis dili öyrənənlərə tədrisi ilkin zəruri şərti kimi əsaslı hesab oluna bilər .

Buna görə də, sözlərin birləşmə imkanlarının söz birləşməsinin tədricən genişləndirilməsi və mürəkkəbləşdirilməsi yolu ilə tələbələrə aşılanması ilkin zəruri şərti tamamilə əsaslı hesab oluna bilər.

İngilis dili leksik ifadələrin tədrisi zamanı meydana çıxan problemlər ümimləşdirərək aşağıdakı nəticələrə gəlmək mümkündür:

- İngilis dili tədrisinin kommunikativ məqsədini həyata keçirmək üçün xarici dillərdə leksik vahidlərin, leksik birləşmələrin yaradıcı tərzdə kombinə edilməsi əsas məsələlərdəndir;
- leksik vahidlərin və leksik birləşmələrin mətndaxili tədrisi şifahi və yazılı nitq fəaliyyətində onlardan düzgün istifadə qabiliyyətini formalaşdıra bilər;
- ingilis dilinin tədrisi sahəsində olan dərsliklərdə sözlərin düzgün kombinə edə bilmə bacarıqlarının formalaşdırılmasına xidmət edən tapşırıqların az olması müşahidə olunur.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

Musayev O.İ. İngilis dilinin qrammatikası. Bakı: Maarif, 1996, 392 s.

Savignon S. Communicative Competence. Theory and Classroom Practice. Reading. Mass: Addison – Wesley, 1983, 47 p.

Cunningham Sarah, Peter Moor. Cutting Edge pre-intermediate. England: Pearson-Longman Education Limited, 2005, 175 p.

Рогова Г.В. Методика обучения английскому языку. М.: Просвещение, 1983, 351 с.

Якушина Л.З. Методика построения урока иностранного языка. М.: Педагогика, 1974, 171 с.

Мамичева В.Т. Обучение лексики французского языка в техническом вузе: Автореф. Дис. Канд.филол.наук. М., 1969, 16 с.

Иванова Е.Ф. Организация следящего контроля трудноусваиваемой лексики на первом курсе языкового факультета педвуза с помощью дноусват иваемоедяшего ого языка. М.: Высшая школа, 1977, 240 с М., 1975, 27 с.

Фоломкина С.К. К вопросу о методике работы над лексикой, подлежащей продуктивному усвоению на 1 и 2 курсах институтов иностранных языков // Учен. Зап. МГПИИЯ. М., 1959, т. XXII, с. 81-110

Вердиева З.Н. Сравнительно-сопоставительное исследование семантической сочетаемости прилагательных в современном английском и азербайджанском языках: Автореф. Дис. … док.филол.наук. Баку, 1970, 45 с.

Алекперова Н.А. Лексико-семантический анализ группы слов и словосоче-таний, выражающих понятие "работа", "труд" и их функционирование в современном английском и азербайджанском языках: Автореф. Дис. … канд.филол.наук. Баку, 1971, 27 с.

Беляев Б.В. Психологические основы усвоения лексики иностранного языка. М.: Просвещение, 1964, 136 с

Богин Г.И. О трудностях употребления иноязычной лексики и их преодо-лении // Психология в обучении иностранному языку. М., 1967, с. 122-136

Филичева Н.И. О словосочетаниях в современном немецкого языка. М.: Высшая школа, 1969, 208 с.

Кауль М.Р. Система свободных субстантивных словосочетаний в современном английском языке: Автореф. Дис. … канд.филол.наук. М., 1970, 19 с.

Ахманова О.С. К вопросу о словосочетании в современном английском языке // Изд. АН СССР, отд. Лит-ры и языка, М.: 1950, т. IX, вып. 6, с. 476-491

# İNGİLİS DİLİNDƏ OMONİMLİK VƏ ÇOXMƏNALILIQ

**Hüseynova Sevinc**
Azərbaycan Dillər Universiteti
Filologiya/Dilşünaslıq (İngilis dili)
Huseynovasevinj9@gmail.com
BAKI,AZƏRBAYCAN

**XÜLASƏ**

İngilis dilinin lüğət tərkibinin geniş bir sahəsini təşkil edən və onun zənginləşməsində böyük rolu olan omonimlər həm nəzəri, həm də praktik baxımdan maraq doğuran bir məsələdir. Omonimlərin araşdırılması, və elmi şəkildə ümumiləşdirilməsi müasir dilçiliyin aktual problemlərindən biridir. Aparılan araşdırmalar müəyyən etmişdir ki, omonimləri öyrənmək xarici dili başa düşmək üçün xüsusilə vacibdir, çünki fərqli qrammatik formalar eyni səsə və ya orfoqrafiyaya malik ola bilər. Omonimlər, sözün mənasının nitq kontekstinə tam olaraq uyğun gəldiyini müəyyən etmək lazım olduqda, ünsiyyət prosesində müəyyən bir manea yaradır. Həm də omonim sözlər, cümlələri birmənalı şəkildə başa düşmək üçün söz seçmək məcburiyyətində qalan danışan üçün bir problemdir. Bu da, mövzunun aktuallığını sübut edir.

Tədqiqat işinin məqsədi ingilis dilində omonimlərin yaranma üsullarını və üslubi işlənmə dairəsini müəyyənləşdirməkdir.

Tədqiqat işinin vəzifələrinə:Omonimlərin növləri,etimoloji-semantik xüsusiyyətləri, çoxmənalı sözlərdən fərqi,bədii dildə omonimlərin rolu və işlənmə funksiyasını tədqiq edilməsi daxildir.

Tədqiqatın elmi yeniliyi:İngilis dilində omonimlərin yaranma yolları və üslubi xüsusiyyətləri haqqında müxtəlif başlıqlar altında yerli və xarici elmi ədəbiyyatda çoxsaylı materiallar olsa da, bu ingilisdilli bədii əsərlərdə omonimlərin işlənmə xüsusiyyətləri yeni bucaq altında araşdırılaraq təhlil edilmişdir.İstifadə olunan dil faktlarının bu mövzu ilə bağlı yazılmış elmi əsərlərdə istifadə edilməməsi də tədqiqat işinin elmi yeniliyini əsaslandırır.

Tədqiqatın praktik əhəmiyyəti:İngilis dilində omonimlərin yaranma üsullarının və üslubi işlənmə dairəsinin müəyyən edilməsi,tədqiqat işində öz əksini tapmış məlumat və dil faktlarının, əldə edilmiş nəticələrin seminarlarda, dərslik və lüğətlərin tərtibatında istifadə olunması isə tədqiqat işinin praktik əhəmiyyəti onun üstünlüyünü müəyyən edir.Nəticə olaraq omonimlərin çoxmənalı sözlərdən fərqi, aparılmış tədqiqatın yekun müddəalarını, təhlil edilmiş başlıca sualların cavablarını və ümumiləşdirilmiş nəticələri özündə əks etdirir.

**AÇAR SÖZLƏR:** Açar söz- omonimlər, açar söz- konversiya, açar söz- polisemiya

## GİRİŞ

Tədqiqat işinin əsas məqsədi ingilis dilində omonimlərin yaranma üsullarını və üslubi işlənmə dairəsini müəyyənləşdirməkdir. Tədqiqat işinin vəzifəsinə aşağıdakılar daxildir:

İngilis dilində omonimlərin növləri və yaranma yolları ilə bağlı araşdırma aparmaq;

Omonimlərin etimoloji-semantik xüsusiyyətlərini, çoxmənalı sözlərdən fərqini təhlil etmək;

Omonimlərin yaranmasında konversiya prosesini araşdırmaq;

Bədii dildə omonimlərin rolunu və işlənmə funksiyasını tədqiq etmək;

Omonimlərin işlənmə tezliyini müəyyənləşdirmək;

Omonimlərin kontekstdə toqquşması hallarını təhlil edib üzə çıxarmaq.

Tədqiqat işinin aktuallığı və əhəmiyyəti dedikdə, aparılan araşdırmalar nəticəsində məlum olmuşdur ki, omonimləri öyrənmək xarici dili başa düşmək üçün xüsusilə vacibdir, çünki fərqli qrammatik formalar eyni səsə və ya orfoqrafiyaya malik ola bilər. Omonimlər, sözün mənasının nitq kontekstinə tam olaraq uyğun gəldiyini müəyyən etmək lazım olduqda, ünsiyyət prosesində müəyyən bir maneə yaradır. Həm də omonim sözlər, cümlələri birmənalı şəkildə başa düşmək üçün söz seçmək məcburiyyətində qalan danışan üçün bir problemdir. Bu da, bu mövzunun aktuallığını sübut edir.

Aparılan araşdırmalar nəticəsində məlum olmuşdur ki, omonimləri öyrənmək xarici dili başa düşmək üçün xüsusilə vacibdir, çünki fərqli qrammatik formalar eyni səsə və ya orfoqrafiyaya malik ola bilər. Omonimlər, sözün mənasının nitq kontekstinə tam olaraq uyğun gəldiyini müəyyən etmək lazım olduqda, ünsiyyət prosesində müəyyən bir maneə yaradır. Həm də omonim sözlər, cümlələri birmənalı şəkildə başa düşmək üçün söz seçmək məcburiyyətində qalan danışan üçün bir problemdir. Bu da, bu mövzunun aktuallığını sübut edir.

İngilis dilində omonimlərin və onun növləri olan omofonların və omoqrafların üstünlük təşkil etdiyini deyə bilərik. Bu da, ingilis dilinə bir çox dillərdən keçmə sözlərin tələffüzlərinin və ya qədim ingilis dilinə məxsus sözlərin tələffüzlərinin və yazılışlarının zamanla dəyişməsi, yaxud dildəki hər hansı bir sözün mənasının genişlənərək bir formanın başqa mənalara da məxsus olması və ya mənşəcə fərqli olması (məsələn, bank sözünün maliyyə institutu mənası fransız mənşəyindən, çay sahili mənası isə Skandinav mənşəyindən gəlir) səbəbindəndir. Odur ki, istər gündəlik danışıq dilində, istərsə də bədii ədəbiyyatda omonimlərə və onun növlərinə (omofon və omoqraf) rast gəlmək qaçılmazdır. Əgər yazıçı omonimləri düzgün dəyərləndirməyi bacararsa, təhlilini apardığımız əsərlərdəki kimi, omonimlərdən söz oyunu – pun kimi istifadə etməklə, yumor yarada və beləliklə əsərlərinin dilini daha canlı, daha obrazlı edə bilərlər.

İngilis dili, dünyanın bir çox və ya hətta əksər dilləri kimi, əsrlər boyu xarici təsirlərə məruz qalmışdır və digər cəmiyyətlərlə getdikcə artan təmaslar, bu adaları xarici ölkələrin işğal etmələri bu dilin leksikonuna yeni sözlər təqdim etmişdir. Fəth Romalıları, Anglo-Saksonları, Danimarkalıları, Vikinqləri və Normanları bu sahillərə gətirdi. Daha əvvəl ərazini işğal etmiş Kelt qədim İngilis tayfaları, Britaniya Adaları olan ərazilərin kənarına sıxışdırıldı, ancaq yer adlarında dillərinin izlərini və gündəlik İngilis dilində gizlədilən bir sıra sözləri buraxdılar. Din, elm, təhsil və sənət dünyasında Latın, Yunan və ya Ərəb dilindən olan sözlər də ingilis dilinə keçdi. Ticarət, daha böyük mədəni təmas və İngiltərənin ekspansionist müstəmləkəçilik keçmişi, Fransız, Alman, İspan və Hollandiyalı sözlərin, eləcə də rus, hind, ərəb və çin kimi daha ekzotik dillərdən bəzi sözlərin ingilis dilinin lüğət tərkibinə keçməsinə səbəb olmuşdur.

Ümumi qəbul edilmiş orfoqrafiya sisteminin bir qədər qeyri-müəyyən inkişafının nəticəsinin ingilis omonimlərinin təkamülünə təsirini də unutmamalıyıq. G.Chaucer dövründə dilin orfoqrafiyası olduqca xaotik idi. Şekspirin dövründə daha sabit hal yaradıla bilərdi, ancaq lüğətlərin və daha universal təhsilin ortaya çıxması ilə yalnız XVIII və XIX əsrlərdə standartlaşdırılmış bir orfoqrafiya sisteminə doğru əsl addımlar atılmağa başlandı.

Bütün bu amilləri nəzərə aldıqda, metaforik olaraq desek, linqvistik tellərin kəsişməsi və mənaların o qədər qarışıq olması, yazılı və şifahi ingilis dilinin təsadüfi qurbanı olması təəccüblü deyil. Və belə bir dilçiliyin ortasında "omonimlər" olaraq adlandırdığımız leksik birləşmələrin müasir İngilis dilinə yol tapması təəccüblü olmamalıdır.

Əgər omonimiyaya diaxronik olaraq baxılarsa, iki və ya daha çox sözün səslə yaxınlaşması halları etibarlı şəkildə omonimiya halları kimi qəbul edilə bilər, məsələn, race1 və race2 etimoloji cəhətdən fərqli iki sözlə əlaqələndirilə bilər. Semantik fərqlilik halları isə daha şübhəlidir. Polisemiyadan omonimiyaya keçid tədricən baş verən bir prosesdir, buna görə də mənalar arasındakı bütün əlaqələri

iki ayrı sözün ortaya çıxması ilə nəticələnən fərqli semantik inkişafın hansı mərhələsində yıxıldığını dəqiq olaraq demək mümkün deyil. “Flower” və “flour” sözləri, məsələn, əsasən yazılma formaları nəticəsində fərqlilik yaranır. Beləliklə, əvvəlcə bir sözün semantik quruluşunu meydana gətirən iki mənanın, indi iki fərqli sözə aid olduğu anlaşılır [1, s.3].

Sinxronik olaraq omonimiya ilə polisemiya arasındakı fərq, bir qayda olaraq, tamamilə semantik meyara əsaslanır. Ümumiyyətlə, natiq tərəfindən müxtəlif mənalar arasında bir əlaqə tutulursa, bunların çoxmənalı sözün semantik quruluşunu meydana gətirdiyi düşünülür, əks halda bu, polisemiya deyil, omonimlik vəziyyətidir.

Beləliklə, semantik meyar, polisemiya ilə omonimiya arasındakı fərqin əslində əlaqəli və əlaqəsiz mənalar arasındakı fərqə qədər azalmağını nəzərdə tutur. Bu ənənəvi semantik meyar, ilk növbədə, etibarlı görünmür, çünki eyni sözün müxtəlif mənaları və iki və ya daha çox fərqli sözün mənaları, danışan tərəfindən eyni vaxtda əlaqəsiz olaraq qəbul edilə bilər.

İngilis dilində omonimlərə olan ehtiyac onlarin yaranma üsullarının və üslubi işlənmə dairəsinin müəyyən edilməsi, omonimlərin növlərinin, onların çoxmənalı sözlərdən fərqinin, bir neçə bədii əsərin tədqiqi nəticəsində omonimlərin funksional işlənmə xüsusiyyətlərinin araşdırılması, kontekstdə toqquşma hallarının tədqiq edilərək üzə çıxarılması onun elmi əhəmiyyətini təşkil edir. Hal hazırda yerinə yetirilmiş tədqiqat işində öz əksini tapmış məlumat və dil faktlarının, əldə edilmiş nəticələrin seminarlarda, dərslik, dərs vəsaiti və lüğətlərin tərtibatında istifadə olunması isə tədqiqat işinin praktik əhəmiyyətini müəyyən edir.

Omonimlərin, tarixi bir təsadüf nəticəsində meydana gəldiyinə inanılır, bir sözün bir forması iki fərqli məna qazandığı üçün, mənaları tamamilə fərqli və əlaqəsiz olsa belə, eyni yazını saxlamışdır. Ancaq bu yanaşmanın istifadəsi həmişə asan olmur, çünki bəzi sözlərin mənşəyini tarixdə izləmək çətin ola bilər və verilmiş omonimin yarandığı orijinal söz formasını əldə etmək üçün tarixdə nə qədər irəliləmək lazım olduğuna qərar vermək həmişə asan olmur.

J.Lyons, omonimlərin tarixi mənşəyindən asılı olaraq etimoloji cəhətdən fərqləndiyini irəli sürərək, polisemiyadan fərqli olaraq tarixən omonimlərin fərqli leksik vahidlərdən qaynaqlandığını izah etdi [2, s.217]. F.R.Palmer, bunu izah etmək üçün həm insan bədəninin bir üzvü, həmçinin də sünbül mənasını verən “ear” sözündən istifadə etdi [3, s.159]. Əvvəlcə bu, metafora və buna görə də polisemiyaya nümunə kimi görünür. Ancaq etimoloqlar bu iki dil vahidinin tarixən bir-biri ilə əlaqəli olmadığını iddia edirlər, buna görə də, polisemiya nümunələri kimi görünsələr də, omonimliyi təmsil edirlər. F.R.Palmerin təqdim etdiyi digər nümunələr “corn” (taxıl) və “corn on foot” (yemək/repast) və “corn” (flour) kimi nümunələrdir [3, s.159]. Bütün bu nümunələr fərqli etimologiyaya malikdir. F.R.Palmer izah edir ki, tarix hər zaman dilin indiki vəziyyətini əks etdirmədiyindən yanıldıcı ola bilər. O, tarixən eyni mənbədən olan və buna görə də çox mənalı sayılacaq sözlərin bir nümunəsini təqdim edir: pupil (tələbə) və pupil of the eye (göz bəbəyi) və the sole (ayaqqabı dabanı) ilə the sole (balıq) və s [3, s.159]. Ancaq bugünkü dildə bu sözlər əlaqəsiz söz cütlərini təmsil edir və omonim sayılır. Bu səbəbdən, bu iki semantik hadisəni ayırmaq və eyni zamanda bir tarixi dil vahidinin omonim olduğunu iddia etmək ilk baxışdan göründüyü qədər asan deyil. Bu mübahisə, fərqli bir orfoqrafiyanın fərqli bir sözün mənşəyini göstərib-göstərmədiyi məsələsi üzərində davam edir. Məsələn, bu gün bizə homofon olaraq bilinən sözlər, “metal” və “mettle”, “flour” və “flower”-də göründüyü kimi eyni orijinal formadan əldə edilə bilər. Bu halda, bu sözlər haqqında tarixi məlumatlara əsaslanaraq, fərqli yazılsa belə, onları eyni söz hesab etmək olardı, buna görə də orfoqrafiya fərqi mənşə fərqinə zəmanət vermir.

S.Ullman omonimlərin yaranmasının üç yolunu təklif edir. Birincisi və ən çox yayılanı, fərqli formalara malik iki və ya daha çox sözün danışıq dilində və bəzən ingilis və fransız dillərində ən çox yayılmış yazıda üst-üstə düşməsi fonetik yaxınlaşmadır . Omonimlərin yaranmasının ikinci yolu, bir sözün iki və ya daha çox mənası bir -birindən uzaqlaşdıqda, aralarındakı əlaqəni itirdikdə və nəticədə itirilən sözün birliyində yaranan semantik fərqlilikdir. Məsələn, “pupil” – “ward” və “scholar” və “pupil of the eye” və dilin sözdə ikincil omonimlərlə dolu olduğunu izah edir. S.Ullmanın təklif etdiyi omonimlərin yaranmasının üçüncü yolu, xarici dillərdən gələn sözlərin ingiliscə və digər dillərdəki omonimlər sırasına çıxması nəticəsində yaranan xarici təsirdir. Ancaq bu üçüncü yol, bu cütlüklərdə göründüyü kimi bir çox qarşıdurmaya səbəb oldu: gate (giriş) (Köhnə İngilis dilindəki geat sözündən) – gate (yol, küçə) (Köhnə Skandinaviya dilindəki gata sözündən) və straight (düz) (Orta dövr İngilis dilindəki stregt sözündən) – strait (boğaz) (Köhnə Fransız dilindəki estreit sözündən, Latın dilindəki strictus sözündən) sözləri yerli fonetika sisteminə adaptasiya olunmuş alınma sözlərdəndir.

Omonimlərin ortaya çıxmasının dördüncü yolu, xarici dilin təsiri ilə yaranan semantik söz götürmədir. S.Ulmanın nümunəsi Alman dilində omonim olan "scholls" (qala) və "scholl" (kilid) sözlərinə əsaslanır və o, bunu Çex və Polşa dillərində kilid sözü üçün işlənən zamek sözünün həm də qala mənasında işlənməsi ilə izah edir. O, davam edir və oxşar "alınma omonimiya"-nın rus dilində də olduğunu, eyni zamanda dialekt fərqlərinin bir-birindən fərqlənməsini mümkün etdiyini izah edir: "za 'mok" (kilid) – "zamok" (qala). S.Ullmann semantik cəhətdən söz almaları çox nadir bir proses olaraq izah edir, buna görə də təqdim olunan nümunələrin sayını məhdudlaşdırır [4].

S.Ullman, eyni zamanda, etimologiyadan xəbərdar olmadıqları üçün danışanın omonimlərin tarixi mənşəyindən xəbərsiz ola biləcəyini və sırf psixolinqvistik əsaslara əsaslanaraq omonimlər arasında əlaqə quracağını izah edir. Buna görə də qərarını yalnız sözün mənşəyindən çox hiss etdikləri şəkildə əsaslandırdı [4]. Maraqlıdır ki, F.R.Palmer izah edir ki, bu sözlər adətən əlifba mövqeyinin saxlanılması lazım olduğu üçün mənşəyindən çox yazılış fərqinə görə lüğətlərdə qruplaşdırılır [3, s.159]. Tədqiqat işinə olan ehtiyac və əsas problemlər ingilis dilində omonimlərin yaranma üsullarını və üslubi işlənmə dairəsini müəyyənləşdirməkdir.

Qarşıya qoyulmuş məqsədə catmaq üçün yerinə yetirilmiş məsələlər tədqiqat işində açıqlanır. Çox vaxt sözün tarixi mənşəyi məlum olmadığı üçün onun tarixi mənşəyi bu sözün omonim olub-olmadığını müəyyən etmək üçün kifayət etmir. Sözün tarixini izləyə bilmək üçün onun tarixdə nə qədər araşdırılmalı olduğu bilinmir. Tədqiqat zamanı müşahidə, təsviri, linqvistik və müqayisə metodlarından istifadə edilib.Bu da tedqiqat işinin əhəmiyyətini göstərir.

1786-cı ildə İngilis şərqşünası Sir William Jones, Latın, Yunan və Sanskrit dillərində olan bir çox sözün təkcə bir-birinə deyil, ingiliscə ekvivalentlərinə də bənzərsiz bir oxşarlığının olduğunu fərq etdi. Xüsusilə, fərqli dillərdə ailə münasibətlərini ifadə edən terminlər və saylar bir-birinə çox bənzəyirdi, çünki bu, təsadüf nəticəsində yaranmışdı. Bu səbəbdən də o, Avropanın və Asiyanın bir hissəsinin sonrakı qədim və müasir dillərinin inkişaf etdiyi bir ana dilinin olması lazım olduğu nəzəriyyəsini irəli sürdü. Bu ana dil üçün müxtəlif terminlər təklif edildi, lakin nəticədə dilçilər çox vaxt onu, sadəcə Hind-Avropa olaraq adlandırırlar. Bu arxaik, qeyd olunmamış dilin harada və nə vaxt mövcud olduğunu heç kim dəqiq bilmir. Ümumiyyətlə qəbul edilən fikir, ehtimal ki, eramızdan əvvəl 3000-ci ildə Şərqi və ya Mərkəzi-Şərqi Avropanın bir yerində danışılmış ola bilər. Bununla birlikdə, bu ana dili ilə bağlı nəzəriyyələr sübut və ya həqiqətdən daha çox elmi təhrif və fərziyyələrin qarışığına əsaslanır[5, s.4].

Erkən etimoloqlar Latın, Yunan və Sanskrit dillərində yazılmış mövcud mətnləri təhlil edərək əldə edə bildikləri bütün məlumatları topladıqdan sonra tədqiqatlarını indi "dilçilik rekonstruksiyası" adlandırılan sahə üzrə davam etdirdilər. Mövcud dilləri müqayisə etdilər, səs dəyişmələrində nümunələr axtardılar (yəni sözlərin bir dildən digərinə keçməsi ilə saitlərin və samitlərin necə dəyişdiyini müşahidə etdilər) və müəyyən bir sözün tarixi formasının nə ola biləcəyini müəyyən etməyə çalışdılar. İstifadə olunan metodun yaxşı bir nümunəsi, müasir İngilis dilindəki "lie" sözünün araşdırılması ola bilər, çünki bu söz Latın və Yunan dilində "bed", müasir Fransız dilində "lit" və İspan dilində "lecho", eyni zamanda rus dilində feil "lech" sözləri mənaca eyni olub, qohum sözlər hesab edilir. Etimoloqlar bu sözləri təhlil edərək tarix və dil dəyişikliyi ilə bağlı araşdırmalar apararaq bu sözün orijinal bir Hind-Avropa formasının – "legh" bir zamanlar mövcud olduğu qənaətinə gəldilər. Yenidən qurulan bu cür formaların indi, dərsliklərdə və lüğətlərdə, qeyd edilmədiyini göstərmək üçün bir ulduzla işarələnmişdir və bu cilddə təcrübəyə riayət edilmişdir [5, s.4].

On doqquzuncu əsr dilçiləri tərəfindən edilən ən əhəmiyyətli müşahidələrdən biri, bəzi samitlərin bir dildən (və ya bir dil qrupundan) digərinə keçdikcə az -çox ardıcıl olaraq dəyişməsi idi. Əslində bu, məsələn, yunan və latınca "p" hərfi ilə təmsil olunan səsin alman dillərində çox vaxt "f" halına gəldiyini: patēr, pater, father; "ph" və ya "f" ilə təmsil olunan səsin "b" (pherein, ferre, bear) halına gəldiyini ifadə edir. Müəyyən şərtlərdə Yunan "p" hərfi ingilis dilində "b" halına gələ bilər, bu baxımdan Yunanıstanın "peithesthai", Latınca "fidere" və qədim ingiliscə "bidan" ("etibar etmək") arasındakı əlaqəni nümunə gətirmək olar. Səssiz "f" dən səsli ekvivalenti "v"-ə keçid, "fan" sözünün və Latın mənşəli feli olan "ventilare" ("to fan") müqayisəsində də görülür.

Eyni adlı sözlər fenomeni, tamamilə fərqli şeylər üçün eyni ad faktını qeyd edən qədim filosoflar tərəfindən öyrənildi. Uzun müddətdir ki, omonimlik bu hadisəyə xüsusi diqqət yetirmədən təsadüf kimi qəbul edilirdi. Məsələn, S.İ.Ojegov etimoloji omonimliyin "tarixi təsadüf məsələsi" olduğuna, "dil deyil, toplama problemi" olduğuna inanırdı [5, s.70]. V.I.Abaev, eyni zamanda, polisemiyadan

fərqli olaraq, omonimliyin yalnız bir təsadüf olduğuna inanırdı, çünki insan düşüncəsi, ifadəsi, yeni bir şeyi və ya fenomeni adlandırarkən adi olan yeni bir şeyi təsvir etmək cəhdi yoxdur. "Polisemiyaya koqnitiv maraq çox böyükdür. Alim işarə edir ki, omonimliyə koqnitiv maraq əhəmiyyətsizdir".

Bu fəsildə omonimlərin çoxmənalı sözlərdən fərqi, onların etimoloji-semantik analizi şərh edilir. Eləcə də, omonimiya və konversiya problemi araşdırılır.Yerinə yetirilmiş tədqiqat işində omonimlərin etimoloji-semantik xüsusiyyətlərini, çoxmənalı sözlərdən fərqini təhlil etmək; omonimlərin yaranmasında konversiya prosesini araşdırmaq; və s. Kimi məqsədlər tədqiqat işində açıqlanır.Tədqiqat işinin strukturundan danışdıqda xülasə,açar sözlər,giriş,tədqiqat metodu və nəticədən ibarətdir.

**TƏDQİQAT METODU**

İngilis dilində omonimlərin yaranmasının çoxsaylı mənbələrindən biri də konversiyadır. Konversiya prosesinin ingilis dilinin söz yaratma prosesində bu qədər geniş yayılma səbəbi kimi, bu dildə morfoloji elementlərin az olması göstərilir. Konversiya, yüksək məhsuldar söz yaratma üsuludur və fellər və isimlər arasında geniş yayılmışdır.

Konversiya, artıq mövcud olan bir sözün kökünü fərqli bir paradiqmaya (fly (isim) – to fly (feil)) qoymaqla yeni bir sözün yaranmasıdır. Beləliklə, hər hansı bir törəmə element əlavə etmədən nitq hissəsinin kateqoriyasını dəyişdirən original söz və konversiyaya uğramış söz omonim olur. Məsələn, to fly (uçmaq) feilinin paradiqması → fly, flies, flying, flew, flown, isim paradiqması → fly (milçək) (təkdə) və flies (cəmdə).

Məşhur alim İ.Smirnitski belə yazır ki, ilk vaxtlar sözləri fərqləndirmək üçün onların sonunda şəkilçilər olardı, lakin sonradan bu şəkilçilər ixtisar edildi və beləliklə, orfoqrafik cəhətdən bir-birinə oxşayan sözlər dildə omonimlik yaratdı.

Bu yazının əvvəlki hissəsində qeyd edildiyi kimi, konversiya termini, orfoqrafiyasında heç bir dəyişiklik olmadan fərqli bir nitq hissəsi olan bir sözün yeni bir sözə çevrilməsi prosesinə aiddir. İngilis dilində yazılışı eyni olan, lakin fərqli nitq hissələrinə malik olan bir çox söz olduğundan konversiya prosesi İngilis dilində çox yayılmış bir prosesdir.

Konversiya yolu ilə yeni sözlər yaratmaq prosesi sıfır-afiix və sıfır-morfemin mövcudluğunu nəzərdə tutur. Yeni sözlərdə affiks və morfem görünmədiyinə görə sıfır adlandırılırlar, amma mövcuddurlar. Aşağıdakı cədvəllər konversiyanın ingilis dilində necə baş verdiyini göstərir:

Cədvəl 1. Sifətlərdən felə çevrilmə "en" şəkilşisi Cədvəl 2. Sifətlərdən felə çevrilmə şəkilçisiz

Mənbə: Semantics: An introduction to the science of meaning 1977

Həm Cədvəl 1, həm də 2 sözlərin nitq hissəsinin sifətlərdən fellərə çevrilməsini göstərir. Fərq birinci cədvəldəki fellərə əlavə edilmiş şəkilçidədir. Cədvəl 1-də en şəkilçisi sifətlərə "(bir şeyi) sifətə çevirmək" mənasını verən morfem olaraq əlavə olunur. Cədvəl 2 -də sifətlərdən əmələ gələn fellərə heç bir şəkilçi əlavə edilməmişdir. Konversiya prosesinin burada meydana gəldiyini söyləmək olar. Orijinal sözə heç bir əlavə etmədən, yeni nitq hissəsi və mənası olan yeni bir söz formalaşdırıla bilər. Sıfır affiks və ya sıfır morfem həmişə çevrilən hər hansı bir sözü müşayiət edir.Tədqiqat işinin strukturuna əsasən omonimlərin çoxmənalı sözlərdən fərqi, onların etimoloji-semantik analizi şərh edilir. Eləcə də, omonimiya və konversiya problemi araşdırılır.

**NƏTİCƏ**

Tədqiqat işi "İngilis dilində omonimlərin yaranma üsulları və üslubi işlənmə dairəsi" mövzusunda yazılmışdır. Mövzu ilə bağlı aparılan araşdırmalardan əldə edilən məlumatlar qeyd edilmişdir. Bu məlumatların ümumiləşdirilməsindən konkret olaraq aşağıdakı nəticələr əldə edilib:

Omonimlik eyni formalı, lakin fərqli mənalı sözlər arasındakı münasibətdir və bu mənaya sahib olan sözlərə isə omonimlər deyilir. Omonimlər eyni yazılış və tələffüzə, lakin fərqli mənalara malik olan bir söz və ya söz qrupunu ifadə edir. Bu tərif dil baxımından ciddi mənada verilir. Tərifinə görə, omonimlər eyni vaxtda omoqraflardır (tələffüzlərindən asılı olmayaraq eyni yazılışı olan sözlər) və omofonlardır (yazılışından asılı olmayaraq eyni tələffüzü paylaşan sözlər).

Bu cür ikili məna çalarına sahib cümlələrin mənaları kontekstdən asılı olur. Kontekst aydın olduğu zaman və dinləyən və ya oxuyan şəxsin söz ehtiyatı kifayət etdikdə, cümlənin kontekstə uyğun mənasını tutmaq mümkün olur. Bunun üçün də, istənilən dili öyrənərkən onun omonim sözlərini də araşdıraraq öyrənməkdə fayda vardır.

Omonimlərin bir neçə dilçi tərəfindən bir sıra təsnifatı verilmişdir. Onlardan İ.V.Arnold bütün omonimləri tam omonimlər, omofonlar və omoqraflar olmaqla 3 yerə ayırır. O, bu təsnifatdakı tam omonimləri isə 12 alt qrupa ayırır. A.I.Smirnitski omonimləri iki böyük sinfə ayırdı: tam omonimlər və natamam omonimlər. Tam leksik omonimlər, eyni nitq hissəsinə aid olan və eyni paradiqmalara malik olan sözlərdir. A.I.Smirnitski-yə görə natamam omonimlər üç alt qrupa bölünür: sadə leksik-qrammatik omonimlər; mürəkkəb leksik-qrammatik omonimlər; natamam leksik omonimlər.

Nəticə etibarilə, omonimlərin bütün dilçilər tərəfindən tanınan vahid tərifinin hələ hazırlanmadığını vurğulamaq lazımdır. Müxtəlif dillərin, xüsusən ingilis dilinin omonimlərini təsvir etmək üçün uğurla tətbiq oluna bilən omonimlərin təsnifatına fərqli yanaşmalar mövcud olduğunun şahidi olduq. Dil ünsiyyəti prosesində, omonimiya fenomeni müəyyən çətinliklərə səbəb ola bilər, lakin ünsiyyət kontekstini nəzərdən keçirərkən bu çətinliklər aradan qaldırılır. İngilis dilinin inkişaf tarixi boyunca, omonimiya fenomeni ilə əlaqəli dil dəyişiklikləri olmuşdur və olmağa davam edir. Kontekstdə işlədilmədiyi zaman hər bir sözün mənasında bir qeyri-müəyyənlik müşahidə edilir və əsasən, müəllif sözlərin ikimənalılığını nəzərə alaraq yazdığı təqdirdə kontekts sözlərin mənalarının dəqiqləşməsinə imkan verir. İnsanlar sözlərin mənalarını (omonimliyini, sinonimliyini, çoxmənalılığını və s.) bilərsə, bu onların dil biliklərinə, nitqlərinə əhəmiyyətli dərəcədə təsir göstərər, dilin ədəbi nümunələrinin anlaşılmasında onlara yardımçı olar.

Omonimlərlə çoxmənalı sözlər bir-birindən fərqli anlyışlardır. Hər ikisində də sözlər eyni cür yazıla bilər, amma çoxmənalı sözlərdə əsas məna ilə bağlılıq olduğu halda, omonimlərdə heç bir məna əlaqəsi olmur.

İngilis dilində omonimlərin yaranmasının çoxsaylı mənbələrindən biri də konversiyadır. Konversiya prosesinin ingilis dilinin söz yaratma prosesində bu qədər geniş yayılma səbəbi kimi, bu dildə morfoloji elementlərin az olması göstərilir. Konversiya, yüksək məhsuldar söz yaratma üsuludur və fellər və isimlər arasında geniş yayılmışdır.

Nəticə etibarilə, konversiya ingilis dilində çox geniş yayılmış söz düzəltmə üsullarından biridir və buy olla yaranan sözlər bir-biri ilə omonimlik yaradır. Tədqiqat işini yerinə yetirərkən aşkar edilmişdir ki, bu mövzu ilə bağlı istər ölkəmizdə, istərsə də xarici elmi ədəbiyyatda çoxsaylı kitablar, tədqiqat işləri, elmi məqalələr və s. Mövcuddur. Bu mövzu ölkəmizdə C.Ə.Cəfərov, H.Ə.Həsənov, Ə.Dəmirçizadə, Ə.H.Hacıyeva və bir çox başqa dilçilərimiz tərəfindən, ingilis alimlərindən J.Lyons, İ.V.Arnold, R.S.Ginsburg, G.Yule və bir çox digər dilçilər tərəfindən, həmçinin rus alimlərindən A.İ.Simirnitski, S.İ.Ocaqov, V.İ.Abayev kimi dilçilər tərəfindən tədqiq edilərək çoxsaylı məlumat mənbələri hazırlanmış, buda tədqiqat işinin səmərəliyini qeyd edir.

**ƏDƏBİYYAT SİYAHISI**

Tulloch A. (2017).Understanding English Homonyms: Their Origins and Usage. Hong Kong: Hong Kong University press

Lyons J.(1977). Semantics. Cambridge: Cambridge University Press,

Palmer F. R.(1976). Semantics: A new outline. Cambridge, Great Britain: Cambridge University Press,

Ullmann S. (1962).Semantics: An introduction to the science of meaning. Oxford, Great Britain: Basil Blackwell,

Ожегов С.И.(1960) Выступление на дискуссии по вопросам омонимии. С.И.Ожегов. Лексикографический сборник. М. Вып. 4.

# ÇOXDİLLİLİYİN FORMALAŞMASI: İKİNCİ VƏ ÜÇÜNCÜ DİLLƏRİN MƏNİMSƏNİLMƏSİ

**Pərvanə Bağirova**
Azərbaycan Dillər Universiteti, Doktorant
Bakı Biznes Universiteti, Müəllim
Parvana13baghirova@gmail.com
BAKI, AZƏRBAYCAN

**XÜLASƏ**

Çoxdillilik müəyyən bir cəmiyyətin və ya fərdin birdən çox dildən istifadə etməsi nəticəsində yaranır. Ümumiyyətlə, çoxdillilik qlobal bir fenomendir və getdikcə qloballaşan dünyada onun nəzəri əsaslarının sistemli şəkildə tədqiqi vacib əhəmiyyət kəsb edir. Çoxdilliliyin araşdırılmasına müxtəlif cəhətdən yanaşmalar mövcuddur ki, onlardan ən vacibi və maraq doğuran tərəfi çoxdilliliyin sosiolinqvistikada qoyuluşudur. Bu fenomenin araşdırılması ilə bağlı bir sıra tədqiqatlar mövcuddur. Bu məqalədə isə çoxdilliliyin formalaşmasında mühüm əhəmiyyət kəsb edən ikinci və üçüncü dillərin mənimsənilməsi məsələsinə nəzər yetirilmişdir. İkinci və üçüncü dillərin mənimsənilməsinə şərait yaradan bir sıra amillər mövcuddur. Bu məqalədə çoxdilliliyin formalaşmasına birbaşa təsir göstərən bu amillər araşdırılmış, eyni zamanda, məqalədə çoxdilliliyin formalaşma şəraiti ilə bağlı müvafiq nümunələr də göstərilmişdir.

**AÇAR SÖZLƏR:** sosiolinqvistika, çoxdillilik, ikinci dilin mənimsənilməsi, üçüncü dilin mənimsənilməsi

**ABSTRACT**

Multilingualism occur when a certain society or individuals use more than one language. In general, multilingualism is a global phenomenon and in an increasingly globalized world it is of vital importance to investigate its theoretical basis systematically. There are various approaches to the investigation of multilingualism, however, the most important and intriguing aspect is how multilingualism is well-defined in sociolinguistics. There are a number of researches related to the investigation of this phenomenon. However, this article gives serious consideration to the issue of the second and third language acquisition which is of great importance in the formation of multilingualism. There are a number of factors that account for the second and third language acquisition. This article discusses these factors which have a direct impact on the formation of multilingualism, at the same time, the relevant examples concerning the condition of the formation of multilingualism are demonstrated in this article.

**KEYWORDS**: sociolinguistics, multilingualism, second language acquisition, third language acquisition

## GİRİŞ

Dünya üzrə nə qədər dil mövcuddur? Ən çox və yaxud ən az dil hansı ölkədə danışılır? Dil müxtəlifliyi dünya üzrə bütün ərazilərdə eynidirmi? Əgər eyni deyilsə, bunun səbəbi nədir? Dünya üzrə birdən çox dildə danışanların sayı nə qədərdir? Nəyə görə onlar birdən çox dildən istifadə edirlər? Bəs bura hansı amillər daxildir? Bütün bu suallara cavab tapmaq çoxdilliliklə bağlı tədqiqatların mərkəzində durur. Çoxdillilik ayrı-ayrı fərdlərin və ya hər hansı bir ölkədə cəmiyyətin birdən çox dildən istifadə etməsi nəticəsində yaranır. Globallaşan dünyada çoxdillilik öz aktuallığını qoruyub saxlayan mövzulardan biridir. Çoxdillilik terminin mənalandırılması ilə bağlı fərqli fikirlər olsa da, nəticə etibarı ilə onlar eyni məna və məzmuna gəlib çıxır: "Çoxdilli şəxs istər aktiv (danışaraq və yazaraq), istərsə də passiv (dinləyərək və oxuyaraq) şəkildə ünsiyyət qura bilən şəxsdir" (Wei, 2008). "Çoxdillilik cəmiyyətin, qrupların, fərdlərin mütəmadi olaraq gündəlik həyatlarında birdən çox dildən istifadə etmək bacarığıdır" (The European Commission, 2007). Onu da qeyd etmək lazımdır ki, yalnız bir dildən istifadə edən şəxs tapmaq demək olar ki, çətindir. Hər bir şəxs bu və ya digər dərəcədə ən azı iki dildən müəyyən məqsədlər üçün istifadə edir. Həmin məqsədlər ünsiyyətdə iştirak edən tərəflərdən, situasiyadan asılı ola bilər.

Məqalənin strukturuna giriş, tədqiqatın metod və metodologiyası, məsələnin müzakirəsi, nəticə və ədəbiyyat siyahısı daxildir.

**TƏDQİQAT METODU**

Qarşıya qoyulmuş məsələnin araşdırılmasında müxtəlif ədəbiyyat və materiallara əsaslanaraq, ümumiləşdirmə, analoq və tipoloji yanaşma kimi nəzəri tədqiqat üsullarından istifadə edilmişdir.

İkinci dilin mənimsənilməsi ilə fərddə ikidillilik – bilinqvizm, üçüncü dilin mənimsənilməsi ilə isə çoxdillilik formalaşmış olur. Bu müxtəlif səbəblərdən baş verə bilər. İlk növbədə ailə faktoru mühüm rol oynayır. Belə ki, valideynlərdən birinin fərqli millətə məxsus olması ilə uşaq ikinci dili öyrənməli olur. Buna baxmayaraq, onu da qeyd etmək lazımdır ki, çoxdilliliyin formalaşmasında təkcə ailə faktoru olmaya da bilər. Valideynlər fərqli millətlərə mənsub olmasa belə biz burada ikinci və üçüncü dilin mənimsənilməsindən danışa bilərik. Burada artıq, dil siyasəti, qloballaşan dünyada ünsiyyət vasitəsi kimi bəzi dillərin daha çox işlək olması və əmək bazarında tələb olunması kimi məsələlərdən də söhbət açılmalıdır.

Qeyd olunduğu kimi, ölkənin apardığı dil siyasəti də bu və ya digər dərəcədə ikinci dilin mənimsənilməsi ilə birbaşa bağlıdır. Belə ki, təhsil sisteminin tələbindən irəli gələrək ikinci dilin öyrənilməsinə zərurət yaranır. Aparılan dil siyasətinin özü isə sosial, mədəni, siyasi və iqtisadi amillərlə bağlı ola bilər. Sosial amil dedikdə, müxtəlif dilli qruplar arasında bərabərliyin təmin olunması başa düşülür. Mədəni amil dedikdə, mədəni müxtəlifliyin ölkədə qorunub saxlanılması ilə əlaqədardır. Siyasi amil dövlətin apardığı siyasətlə birbaşa bağlıdır və məhz elə maraqlı tərəf də odur. Məsələn, seçkilərdə daha çox tərəfdaş toplamağa çalışmaq məqsədilə ilə çoxdilliliyin ön plana çəkilməsi ilə bağlı hər hansı plan irəli sürülə bilər. Bununla da, fərqli millətlərdən olan insanların dəstəyi əldə edə bilər. Bundan başqa, cəmiyyətin inkişafı, eyni bir coğrafi məkanda yaşayan müxtəlif xalqlar arasında kontaktın yaranması və inkişafı ikidilliliyin yaranmasına gətirib çıxarır.

Çoxdilliliklə bağlı aparılan dövlət siyasətinə dövlətin birdən çox rəsmi dil qəbul etməsi, ölkədə danışılan bütün dillərə dəstək olmaq məqsədilə qəzetlərin, televiziya və radio proqramlarının həmin dillərdə olması, çoxdilliliyi təşviq etmək məqsədilə təhsil proqramlarının hazırlanması, həmin dillərdə tədrisin təşkili kimi strategiyaları aid etmək olar.

Artıq mövcud olan ikidillilik şəratində üçüncü bir dilin mənimsənilməsi üçün də şərait yarana bilər. Məsələn, ikidillilik şəraitində ailə digər bir ölkəyə köç etdikdə, bu zaman üçüncü bir dilin mənimsənilməsi məsələsi ortaya çıxacaqdır. Başqa bir ölkəyə miqrasiya, yəni köç etməyin səbəbi həyat şəraitinin yaxşılaşdırılması, təhsillə bağlı ola bilər.

Ümumilikdə, miqrasiyanın əsas səbəbləri kimi "push-pull factors", yəni təkandan və cəzbetmədən ibarət olan "ikitaktlı amillər" göstərilir və miqrasiya prosesi də məhz bu model vasitəsilə analiz edilir (Nəsibov, 2014). Təkan insanların məcburiyyətdən hər hansı bir ölkəyə getməyi üçün əsas rol oynayan amildir. Burada öz növbəsində sosial və siyasi, demoqrafik, iqtisadi və ekoloji səbəblərə rast gəlmək olar. Bütün bu amillər onların ölkəni tərk etməsinə gətirib çıxarır. Cəzbedici amillər isə, daha çox insanları ölkəyə gəlməyə sövq edən amilərdəndir. Məsələn, daha yaxşı həyat şəraiti əldə etmək üçün vətəndaş hər hansı bir ölkəyə köç edə bilər.

Çoxdilliliyin mənimsənilməsi ilə bağlı bir sıra maraqlı tədqiqatlar mövcuddur. Tarixi linqvistika və sosiolinqvistika üzrə apardığı tədqiqatlarla tanınan amerikalı dilçi Suzanne Romanie tərəfindən uşaqlıqdan çoxdilliliyin mənimsənilməsi ilə bağlı irəli sürülən tipologiyaya nəzər yetirək: (Romaine, 1995).

Birinci tip. Bir fərd – bir dil. Valideynlər fərqli millətlərin nümayəndələridir. Bu cür situasiyada valideynlərin hər biri uşaq doğulandan bəri onunla öz ana dilində danışırlar. Hər iki valideynin ana dili fərqlidir. Valideynlərdən birinin ana dili isə yaşadıqları ölkədə istifadə olunan dildir. Məsələn, ana Azərbaycan dilində, ata isə fransız dilində danışır və onlar Fransada yaşayırlar.

İkinci tip. Bir dil – bir mühit. Bu cür situasiyada ailədə danışılan dil kənarda ünsiyyət vasitəsi kimi istifadə olunan dil ilə üst-üstə düşmür. Məsələn, ana Azərbaycan dilində, ata isə fransız dilində danışır. Onlar Fransada yaşayırlar. Ailədə isə, fransız deyil, Azərbaycan dili valideynlər tərəfindən daha çox istifadə olunur. Buna baxmayaraq, uşaq erkən yaşdan artıq fransız dilindən istifadəyə də məruz qalır.

Üçüncü tip. Valideynlərin hər ikisi eyni dildə danışır. Ailədə işlək olan bu dil onların yaşadıqları ölkədə istifadə olunan dil deyil. Buna baxmayaraq, valideynlərin istifadə etdiyi dil bu və ya digər dərəcədə yaşadığı qonşuluq ərazisində istifadə olunur. Uşaq isə məktəbə getməyə başlayanda

cəmiyyətdə hər kəs tərəfindən qəbul olunan dili mənimsəməyə başlayır. Məsələn, valideynlər ABŞ-a köç edən meksikalı miqrantlardır. Onlar ispandilli əhalinin üstünlük təşkil etdiyi, eyni zamanda öz yerlilərinin olduğu ərazidə yaşayırlar.

Dördüncü tip. Ailədə işlək olan iki fərqli dil mövcuddur və həmin dillər ailənin qaldığı ölkədə istifadə olunan dil deyil. Hər iki valideyn evdə uşaqla ünsiyyət qurarkən öz ana dillərində danışır. Onların ana dilləri müəyyən dərəcədə yaşadıqları ərazidə istifadə olunur. Uşaq isə məktəbə getməyə başlayanda cəmiyyətdə hər kəs tərəfindən qəbul olunan dili mənimsəməyə başlayır.

Beşinci tip. Ailədə valideynlərdən biri öz ana dilindən istifadə etmir. Valideynlər eyni dildə danışır və bu dil qaldıqları mühitdə geniş şəkildə işlənən dildir. Valideynlərdən biri özlərinin ana dili olmayan fərqli bir dildə uşaqla ünsiyyət qurur. Məsələn, hər iki valideyn rus dilində danışır və onlar Azərbaycanda yaşayırlar. Ana öz uşağı ilə ingilis dilində də danışır.

Altıncı tip. Dil kodunun dəyişməsi. Bu cür situasiya o zaman baş verir ki, valideynlərin hər ikisi çoxdilli olsun. Ümumilikdə, çoxdillilik onların qaldığı mühitdə də geniş yayılan bir amildir. Hər iki valideyn müntəzəm olaraq uşaqları ilə ünsiyyətdə birdən çox dildən istifadə edir.

Yuxarıda göstərilən tipologiya fərdi və kollektiv çoxdilliliyin formalaşmasına aid edilir. Üçüncü, dördüncü və altıncı tiplərə nəzər yetirsək, burada situasiya bir az fərqlidir. Belə ki, burada fərdi çoxdilliliklə yanaşı, kollektiv çoxdillilik də özünü göstərir. Buna görə də mənimsənilən ikinci və üçüncü dillərin işlək olması və inkişaf etdirilməsi üçün şərait və imkan mövcud olacaqdır. Birinci, ikinci və altıncı tiplərə nəzər yetirsək, görərik ki, burada, əsasən, fərdi çoxdillilik səciyyəvidir. Şəraitdən asılı olaraq, hansı dilə daha çox məruz qalsaq, o dildən istifadə daha geniş olacaq, mənimsənilən digər dillərdən istifadə üçün isə şərait məhdud olacaqdır. Onu da qeyd etmək lazımdır ki, təbii olaraq, bu tipologiya fərqli situasiyaları nəzərə aldıqda müəyyən modifikasiyalara uğraya bilər və bunun araşdırılması da vacibdir. Ümumilikdə, tipologiyaya diqqətlə nəzər yetirsək, görərik ki, bütün tiplərdə çoxdilliliyin formalaşması üçün kifayət qədər geniş şərait mövcuddur.

## NƏTİCƏ

Çoxdilliliyin formalaşmasında rol oynayan amillər müxtəlifdir. Çoxdilliliyin yaranması ikinci və üçüncü dillərin mənimsənilməsi ilə birbaşa bağlıdır. Aparılan araşdırmadan belə bir nəticəyə gəlmək olar ki, çoxdilliliyin yaranmasında başlıca amillər fərqli millətlərdən olan şəxslərin ailə qurması və miqrasiyadır. Təbii olaraq, ikinci və üçüncü dillərin mənimsənilməsi zamanı hər bir fərddə fərqli motivləşdirici amillər də əsas rol oynaya bilər. Ümumiyyətlə, bu cür amilləri nəzərə almaqla müxtəlif cəmiyyətlərdə çoxdilliliyin araşdırılması maraq doğuran və vacib bir məsələdir.

## ƏDƏBİYYAT SİYAHISI

Nəsibov, E. (2014). Miqrasiyanın əsasları. Miqrasiologiya. Miqrasiya prosesləri. Dünya miqrasiya mərkəzləri. I Kitab. Bakı, "Elm və Təhsil" nəşriyyatı, 68.

Bardel, C. And Sánchez, L. (eds.). (2020). Third language acquisition: Age, proficiency and multilingualism. (EuroSLA Studies 3). Berlin: Language Science Press. DOI: 10.5281/zenodo.4138753

Cenoz, J. And Jessner, U. (2000). English in Europe: The Acquisition of a Third Language, Multilingual Matters, Clevedon.

Deumert, A. (2011). 15 – Multilingualism from Part IV Multilingualism and language contact. The Cambridge Handbook of Sociolinguistics. DOI: https://doi.org/10.1017/CBO9780511997068.021. Publisher: Cambridge University Press, 261-282.

European Commission. 2007. Final Report: High Level Group on Multilingualism. Luxembourg: Office for Official Publications of the European Communities. Retrieved from https://op.europa.eu/en/publication-detail/-/publication/b0a1339f-f181-4de5-abd3-130180f177c7

Wei, L. (2008). Research perspectives on bilingualism and multilingualism. In Li Wei & Melissa G.Moyer (eds.), The Blackwell Handbook of Research Methods on Bilingualism and Multilingualism. Oxford: Blackwell, 3-17.

Romaine, S. (1995). Chapter 5 The bilingual child. Bilingualism. 2nd edn. Oxford: Balckwell, 183-85.

# INTERACTION OF HYPERBOLE WITH OTHER STYLISTIC MEANS

**Ismayilova Nazrin**
Baku Slavic University
World Literature/Comparative-historical and comparative-typological linguistics
N_ismayilova@internet.ru
BAKU, AZERBAIJAN

**ABSTRACT**

This paper explores the dynamic interplay between hyperbole and other stylistic means in literature and language. Hyperbole, renowned for its exaggerated claims, serves to intensify the impact and draw attention within texts or spoken discourse. When combined with devices such as metaphor, irony, alliteration, anaphora, epiphora, and humor, hyperbole's effect is magnified, resulting in a rich and nuanced expression. Drawing upon examples and insights from literary theorists and linguistic analysts, this study elucidates how the convergence of hyperbole with other means enriches the texture and resonance of communication. Through an exploration of metaphorical and allegorical constructions, ironic juxtapositions, phonetic repetitions, and humorous exaggerations, this paper unveils the multifaceted relationship between hyperbole and stylistic elements. By delving into these interactions, a deeper understanding of the mechanisms driving literary and rhetorical expression emerges, highlighting the intricate tapestry of language and literature. Hyperbole and other stylistic means of the language are broadly used almost in all languages including Azerbaijani and English. This analysis sheds light on the ways in which hyperbole collaborates with other devices to create compelling and impactful discourse, contributing to the complexity and depth of human communication.

**KEY WORDS:** hyperbole, stylistic means, literature

**XÜLASƏ**

Bu məqalə ədəbiyyatda və dildə hiperbola və digər üslub vasitələri arasında dinamik qarşılıqlı əlaqəni araşdırır. Şişirdilmiş iddiaları ilə məşhur olan hiperbola mətnlər və ya danışıq diskursunda təsiri gücləndirməyə və diqqəti cəlb etməyə xidmət edir. Metafora, ironiya, alliterasiya, anafora, epifora və yumor kimi vasitələrlə birləşdirildikdə hiperbolanın effekti güclənir, zəngin və nüanslı ifadə yaranır. Ədəbiyyat nəzəriyyəçiləri və linqvistik analitiklərin nümunələri və fikirlərinə əsaslanaraq, bu araşdırma hiperbolanın digər vasitələrlə yaxınlaşmasının ünsiyyətin toxumasını və rezonansını necə zənginləşdirdiyini aydınlaşdırır. Məcazi və alleqorik konstruksiyalar, ironik yan-yana yerləşdirmələr, fonetik təkrarlar və yumoristik şişirtmələrin tədqiqi yolu ilə bu məqalə hiperbola və üslub elementləri arasında çoxşaxəli əlaqəni açır. Bu qarşılıqlı əlaqələri dərindən öyrənməklə ədəbi və ritorik ifadəni idarə edən mexanizmləri daha dərindən başa düşmək, dil və ədəbiyyatın mürəkkəb qobelenini vurğulamaqla ortaya çıxır. Hiperbola və dilin digər üslub vasitələri demək olar ki, bütün dillərdə, o cümlədən Azərbaycan və ingilis dillərində geniş şəkildə istifadə olunur. Bu təhlil insan ünsiyyətinin mürəkkəbliyinə və dərinliyinə töhfə verərək cəlbedici və təsirli diskurs yaratmaq məqsədilə hiperbolanın digər vasitələrlə qarşılıqlı əlaqə yollarına işıq salır.

**AÇAR SÖZLƏR:** hiperbola, üslubi vasitələr, ədəbiyyat

## INTRODUCTION

The study of stylistic devices in literature and language has long been a subject of fascination and inquiry, with scholars delving into various aspects of how these devices interact to shape meaning and impact within texts. Among these devices, hyperbole stands out as a particularly intriguing tool utilized by writers and speakers to exaggerate and amplify certain elements for rhetorical, emotional, or aesthetic effect. However, the interaction of hyperbole with other stylistic devices remains an area that warrants further exploration.

Hyperbole, characterized by its exaggerated and overstated claims, plays a crucial role in enhancing the impact and attention of texts or spoken words. When combined with other stylistic devices such as metaphor, irony, alliteration, anaphora, and humor, hyperbole can create a synergistic effect, resulting in more dynamic and engaging compositions.

The purpose of this paper is to delve into the nuanced interactions between hyperbole and various stylistic devices, shedding light on how their fusion contributes to the richness and complexity of literary and rhetorical expression. By examining examples and insights from both literary theorists and linguistic analysts, we aim to elucidate the diverse ways in which hyperbole interacts with other stylistic elements, enriching the texture and resonance of written and spoken discourse.

Through an exploration of metaphor and allegory, irony, alliteration and assonance, anaphora and epiphora, as well as humor and joke construction, we will uncover the multifaceted relationship between hyperbole and these devices. By doing so, we hope to provide a deeper understanding of the mechanisms at play when hyperbole converges with other stylistic tools, thereby illuminating the intricate tapestry of language and literature.

**RESEARCH METHODS**

The research method employed in this study involves a comprehensive review and analysis of existing literature on the subject of hyperbole and its interaction with other stylistic devices in literature and language.

Interaction of hyperbole with other stylistic means

The interaction of hyperbole with other stylistic devices has not been fully studied and is very confusing, because hyperbole is a stylistic device used to increase the impact or attention of texts or words, and when used in combination with other stylistic devices, it can create a stronger effect. The interaction of hyperbola with other stylistic devices can be interpreted as follows:

Metaphor and Allegory: When metaphor and allegory are combined with hyperbole, it can get a deeper and more colorful picture. When a metaphor or simile is used to contrast one thing with another, hyperbole can make the contrast more prominent. For example, in the phrase “When she sings a song, her voice is like the chirping of a bird” the “chirping of a bird” is metaphorical and is enhanced by hyperbole.

Some theorists have long argued that hyperbole belongs to metaphor (Sperber and Wilson, 1985/86, Sperber and Wilson, 1986/95, Sperber and Wilson, 2008, Wilson and Carston, 2006, Wilson and Carston, 2007). The claim has been that they are both loose uses of language and require the hearer to form a provisional concept that is broader in denotation than the lexically encoded concept from which it derives (Deamer, 2013).

Irony: When hyperbole and irony come together, a powerful statement is created through contrast and emphasis. Hyperbole emphasizes a statement while irony emphasizes what is actually meant or the exact opposite of what is being expressed. It can make the text more interesting and amazing.

Two types of classification were made between those who grouped irony and hyperbole. A number of philosophers (e.g., Goodman, Fogelin, Stern, and Guttenplan) have considered hyperbole to be a concept distinct from, but closely related to, irony. On the contrary, a number of psychologists (Leggitt and Gibbs) have taken a stronger position that hyperbole is a kind of irony (Goodman & Frank, 2016).

In the vast literature that exists on discourse styles, metaphor and irony are often regarded as two central tropes that differ significantly in their modes of elaboration and explanatory implications. Other styles are classified by whether they are drawn more metaphorically or more ironically. So, for example, simile is grouped with metaphor, and humiliation (meiosis) is grouped with irony. An interesting and rather fundamental point of disagreement exists in the little existing literature on hyperbole, namely, whether it is more metaphorical or ironic, that is, whether it fits into the family of metaphorical tropes or the family of irony. The few philosophers who mention hyperbole tend to group it with irony. For example, Nelson Goodman and Robert Fogel both provide brief analyzes of hyperbole and group it alongside irony. Joseph Stern and Sam Guttenplan do not discuss hyperbole alone, but in their book-length study of metaphor, they also place hyperbole alongside irony in contrast to metaphor. Similarly, psychologists and linguists interested in the use and cognitive effects of nonliteral language or its development in children have attributed hyperbole to sarcasm, sometimes recognizing that it is actually a form of sarcasm, such as Herb Clark, Herbert Colston and colleagues, Ray Gibbs, and John Legitt , Eva Filippova and Janet Astington combine hyperbole and irony in their works (Carston & Wearing, 2015).

Alliteration and Assonance: When hyperbole is combined with alliteration (similarity of vowels or consonants) or assonance (similarity of vowels), sound repetitions in a text can be made more

prominent. This can make words or phrases stand out more. Alliteration is a series of words that begin with the same letter or sound. In other words, alliteration is a style of language with the repetition of the same consonant sound following each other, usually used in poetry and prose to create a beautiful sentence or to emphasize a word. For example, "You came and you change my whole life now". Assonance is the repetition of vowel sounds within a short passage of verse or language style that has the repetition of the same vowel sound in successive words, usually used in poetry to emphasize or make it more artistic. For example, "You will have healthy and shiny white skin" (Hapsah, 2008).

"Luminous Skin That's So Perfect, Yet Natural..." And this example is hyperbole, no matter how much it looks like assonance and alliteration.

The prosody of a metaphor can be defined as the rhythmic, tonal, and aesthetic qualities that distinguish one metaphor from another. Descriptions are rated highly if their prosody is consistent and of high quality. For example, consider the following similes:

(1) The serpent stretched into the horizon, like a deserted desert. – Shahmar snake stretched to the horizon like an empty desert.

(2) The snake extended into the horizon, like an abandoned desert. – The snake stretched to the horizon like an abandoned desert.

Although alliteration and assonance can work beautifully in figurative language, the high similarity of consecutive words in example (1) can be distracting. Example (2) expresses the same description, but uses words that are further apart in terms of consecutive string similarity (Harmon, 2015).

Anaphora and Epiphora: Anaphora is the repetition of initial constructions within several adjacent speech segments. Anaphora is the most common lexical repetition in Donald Trump's speech. The following speech by the President is one of the most obvious examples of the use of anaphora:

"Together we will make America strong again." We will make America rich again. We will make America proud again. We will make America safe again. Yes, together we will make America great again. We, the citizens of America, have now joined a great national effort to rebuild our country and restore its promise for all our people. Together, we will set the course for America and the world for years to come. We're going to face challenges, we're going to face challenges, but we're going to get the job done." (Brown, 2009).

Epiphora is a repetition of final structures. J. Biden does not often use this type of repetition, but to emphasize the meaning, there is an epophora in his speech: "I care too much about my country to allow this. We all care a lot about our country to make it happen." ( Vasylenko & Khyzhun, 2021).

When anaphora (repetition of the same word at the beginning of a sentence) or epiphora (repetition of the same word at the end of a sentence) is used with hyperbole, the statement becomes even stronger. These repetitions can heighten the effect of hyperbole and create emotional or rhetorical emphasis.

Joke and humor: Many researchers have conducted research on stylistic devices, humor, humorous texts, the role of stylistic device in eliciting laughter. Each scholar has expressed different views on the role of stylistic devices in eliciting laughter. According to Vinogradov, fun or play with homonyms has denotative and connotative meanings, it is one of the most laugh-provoking styles (Vinogradov, 1977: 7). Galperin noted that the most stylistic means of laughter is the random word created by the writer skillfully combining different words (Galperin, 1981: 86).

Hyperbole is also used in Azerbaijani and English humorous texts. Hyperbole is based on analogy. Comparison of meanings, situations, objects in simile can be described and simile is based on primary meanings. The element of the object is described very intensively in the hyperbola. Writers in humorous texts refer to portraying a person's portrait and character traits with a hyperbolic simile, a process that evokes laughter. One of the stylistic tools of great importance in English humorous texts is hyperbole. Hyperbole is used to indicate critical judgment in the following humorous text:

"Once Margaret Thatcher died, and a few days later the Devil dragged her by the hair to the pearly gates. God asked him:

- "What do you think you're doing? I don't want her".

- "Oh come on, do me a favour," replied the Devil, "I've only had her three days and she's already closed down four furnaces!""

In this text, the English refer to the politician former Prime Minister Margaret Thatcher, who was sent to Hades but closed the ovens, so the Devil jokingly begged God to send him to his place. Margaret Thatcher makes trouble for the Devil, it's hyped. Here, hyperbole is created on the basis of the words "Hell", "Fire", "Heat", "Devil". In fact, no one can close the furnaces of Hades (Turayevna, 2019).

The use of hyperbole should be noted in the following English humor in which hyperbole is used:

"A woman needed to buy her mother a birthday present. She didn't know what to buy her mother. She only had one day to buy her mother something. So she went out window shopping.

Soon enough, she walked by a pet store window. She thought to herself, "What a lovely idea for a present! My mother is so lonely and she needs a pet." The woman went into the store and saw many wonderful animals. Puppy dogs, fluffy cats, gold fish, cute mice.

But the woman didn't think these were special enough. She asked the manager if he had a pet that was really special. The manager thought for a moment and replied, "Yes, but it costs a lot of money. $5,000" "I have a parrot that can speak 7 languages, Chinese, English, French, Korean, German, Russian and even Hindi!" The woman said, "Perfect" and bought the bird. She sent it by special delivery to her mother, so she would get it the next day.

The next evening after work, the woman called her mother. She asked, "How do you like your birthday present." Her mother replied, "Thank you, IT'S DELICIOUS!"" (An Old English Joke).

This humorous text is based on a "talking parrot". This text uses hyperbole. Hyperbola "There's a parrot that can speak 7 languages, Chinese, English, French, Korean, German, Russian and even Hindi!" was created as the expression. To describe the parrot so cleverly is to use hyperbole in the text. Depicting the parrot so cleverly that its price is 5000 dollars and the woman's mother cooks and eats this parrot makes the reader and listeners and readers laugh.

Hyperbole is often used in texts that express humor and jokes. Hyperbole can enhance elements of a joke or comedy and make the joke more expressive.

Hyperbole can enhance the emotional, rhetorical, or aesthetic impact of texts when used in conjunction with other stylistic texts. It is a tool that writers and speakers often resort to in order to make their statements more striking and attention-grabbing.

The interaction of hyperbole with other stylistic devices can create more varied and effective texts by combining subtypes and different stylistic elements.

**CONCLUSION**

In conclusion, this study has provided a comprehensive exploration of the interaction between hyperbole and various stylistic means in literature and language. Through a thorough review of existing literature and analysis of examples, we have uncovered the multifaceted relationship between hyperbole and devices such as metaphor, irony, alliteration, anaphora, epiphora, and humor.

Our findings reveal that hyperbole enhances the impact and attention of texts by amplifying certain elements and creating a more dynamic and engaging expression. When combined with metaphor, hyperbole deepens the imagery and vividness of descriptions. In conjunction with irony, hyperbole creates contrast and emphasis, resulting in powerful statements. Alliteration and assonance, when paired with hyperbole, accentuate sound repetitions, making words or phrases stand out more prominently.

Furthermore, the study highlights how hyperbole interacts with rhetorical devices such as anaphora and epiphora, reinforcing emotional or rhetorical emphasis through repetition. Additionally, in the realm of humor and joke construction, hyperbole serves to enhance comedic effect by exaggerating elements of the narrative.

Overall, the research contributes to a deeper understanding of the mechanisms at play when hyperbole converges with other stylistic means, illuminating the intricate tapestry of language and literature. By recognizing the synergistic effects of these interactions, scholars and practitioners can enrich their analyses of textual communication and enhance their appreciation of literary and rhetorical expression. Moving forward, further research in this area will continue to shed light on the nuanced dynamics of hyperbole and its role in shaping meaning and impact within texts.

**LITERATURE**

Brown, 2009, "Speech to Congress" URL: https://www.theguardian.com/world/2009/mar/04/gordon-brown-speech-to-congress

Carston, R., & Wearing, C. (2015). Hyperbolic language and its relation to metaphor and irony. Journal of Pragmatics, 79, 79-92.

Deamer, F. M. (2013). An investigation into the processes and mechanisms underlying the comprehension of metaphor and hyperbole (Doctoral dissertation, UCL (University College London)).

Galperin I., 1981, Stylistics. Moscow.

Goodman, N. D., & Frank, M. C. (2016). Pragmatic language interpretation as probabilistic inference. Trends in cognitive sciences, 20(11), 818-829.

Hapsah, B. (2008). The Analysis Of Language Style In Headline Of English Magazine's Advertisement.

Harmon, S. (2015). FIGURE8: A Novel System for Generating and Evaluating Figurative Language. In ICCC (pp. 71-77).

Turayevna, I. D. (2019). Hyperbole is the exaggeration of any statement. Вопросы науки и образования, (25 (74)), 32-34.

Vasylenko, O. M., & Khyzhun, Y. V. (2021). Translation strategies in reproducing the expressive means of public political speech: peculiarities and techniques. Scientific Journal of National Pedagogical Dragomanov University. Series 9. Current Trends in Language Development, (21), 32-45.

Виноградов В. В. Основные типы лексического значения слова. Избранные труды. Лексикография и лексикология. – М. : Наука. 1977. – 312 с.

# VİLHELM FON HUMBOLDTUN ELMİ İRSİ HAQQINDA

**Hacızadə Mina**
Bakı Slavyan Universiteti
Minahacizade4@gmail.com
BAKI, AZƏRBAYCAN

**XÜLASƏ**

Bu məqalədə Vilhelm fon Humboldtun elmi irsindən bəhs edilmişdir. Görkəmli alman mütəfəkkiri və humanisti Vilhelm fon Humboldtun (1767-1835) maraq dairəsi dil və dilçiliklə yanaşı, fəlsəfəni, ədəbiyyatşünaslığı, klassik filologiyanı, sənət nəzəriyyəsini, ictimai hüququ da əhatə edirdi. O, Avropa konqreslərində iştirak etmiş diplomat və böyük dövlət xadimi idi. Bu fəaliyyətləri arasında onun ən çox nəzəri dilçiliklə bağlı fikirləri hər zaman aktuallığı ilə seçilmişdir. Humboldtun dilçilik konsepsiyası dilin dinamik və yaradıcı tərəfini vurğulayaraq, insanların fikir və hisslərini ifadə etmək üçün güclü bir vasitə olduğunu və yeniliklərə səbəb olduğunu göstərir. Vilhelm fon Humboldtun elmi irsi dilin insan düşüncəsini necə formalaşdırdığını və fərqli dillərin insan mədəniyyətini necə zənginləşdirdiyini anlamaq üçün əhəmiyyətli bir mənbədir.

**AÇAR SÖZLƏR:** Vilhelm fon Humboldt, dilçilik, elmi irs

**SUMMARY**

This article discusses the scientific legacy of Wilhelm von Humboldt. The field of interest of the outstanding German thinker and humanist Wilhelm von Humboldt (1767-1835) included not only language and linguistics, but also philosophy, literary studies, classical philology, art theory, and public law. He was also a diplomat and great statesman who participated in European congresses.

Among these activities, his views on theoretical linguistics have always been selected for their relevance. Humboldt's concept of linguistics emphasizes the dynamic and creative side of language, showing that it is a powerful tool for expressing people's thoughts and feelings and leads to innovation. Wilhelm von Humboldt's scientific legacy is an important resource for understanding how language shapes human thought and how different languages enrich human culture.

**KEYWORDS:** Wilhelm von Humboldt, linguistics, scientific heritage

**РЕЗЮМЕ**

В данной статье рассматривается научное наследие Вильгельма фон Гумбольдта. В сферу интересов выдающегося немецкого мыслителя и гуманиста Вильгельма фон Гумбольдта (1767-1835) входили не только язык и лингвистика, но и философия, литературоведение, классическая филология, теория искусства, публичное право. Он также был дипломатом и великим государственным деятелем, принимавшим участие в европейских конгрессах. Среди этой деятельности его взгляды на теоретическую лингвистику всегда выделялись из-за их актуальности. Лингвистическая концепция Гумбольдта подчеркивает динамическую и творческую сторону языка, показывая, что он является мощным инструментом выражения мыслей и чувств людей и ведет к инновациям. Научное наследие Вильгельма фон Гумбольдта является важным ресурсом для понимания того, как язык формирует человеческое мышление и как разные языки обогащают человеческую культуру.

**КЛЮЧЕВЫЕ СЛОВА:** Вильгельм фон Гумбольдт, лингвистика, научное наследие

## GİRİŞ

Vilhelm fon Humboldt XIX əsrin ən görkəmli alimlərindən biri kimi tanınır. O, dilin mənşəyi ilə bağlı araşdırmaları ilə elm aləminə mühüm töhfələr verib. Dahi alimin elmi irsi dilçiliyin əsaslarını və dilin insan düşüncəsini necə formalaşdırdığını daha yaxşı başa düşmək üçün mühüm mənbə kimi qiymətləndirilir. Vilhelm fon Humboldtun elmi irsi dilçilik və psixologiyaya böyük təsir göstərmişdir. Onun dilin quruluşu ilə bağlı fikirləri bu gün də müzakirə olunan məsələləri əhatə edir.

Vilhelm fon Humboldtun dilçiliyə innovativ yanaşması dilin sosial, mədəni və fərdi cəhətlərini nəzərə alaraq onun universal xüsusiyyətlərini önə çəkir. Onun dilçilik nəzəriyyələri və tədqiqatları dilçiliyin təkamül prosesinə öz töhfəsini vermiş, dilçilik sahəsində yeni metodologiyaların inkişafı üçün zəmin yaratmışdır. Dilin struktur və funksional xüsusiyyətlərini dərk etməyə yönəlmiş tədqiqatlar Vilhelm fon Humboldtun elmi irsinin əhəmiyyətini və təsirini davam etdirir. Bu yeniliklər Vilhelm fon Humboldtun elmi irsinin dilçilik və insan düşüncəsi sahələrində dəyərini və əhəmiyyətini artırır.

Vilhelm fon Humboldt özünün bütün linqvistik konsepsiyasını yaradaraq, alman filosoflarının əsas müddəalarını mənimsəməklə yanaşı, keçmiş dilçilərin nailiyyətlərini də miras almışdır.

Dahi dilçi-mütəfəkkirin dilçilik görüşləri məşhur məruzəsindən əlavə, bir sıra məqalələrində, xüsusilə isə vəfatından sonra 1836-1839-cu illərdə nəşr edilmiş "Yava adasındakı kavi dili haqqında" əsərinin "Bəşər dilləri quruluşunun müxtəlifliyi və bunun bəşəriyyərin mənəvi inkişafına təsiri haqqında" adlı əsərin girişində əks olunur.

"Xalqın dili onun ruhudur və xalqın ruhu onun dilidir" deyən dil filosofu dili bütün maddi və mənəvi sərvətlərin məcmusu kimi qəbul etdiyi xalq ruhunun ifadəçisi kimi dəyərləndirirdi. Və belə düşünürdü ki, bəşər ruhu müxtəlif olduğu üçün dünya dilləri də müxtəlifdir (Cəfərov 2020).

Onun fikrincə, xalqın dilinin mənəvi xüsusiyyəti və quruluşu bir-birilə o qədər sıx əlaqəlidir ki, əgər biri mövcuddursa, bundan mütləq o birinin də mövcudluğu hasil olur.

Bütün bunlardan əlavə, Humboldt haqqında onu da qeyd edək ki, Ümumi dilçiliyin banisi dilin təbiətinə xas olan bir sıra antinomiyalar müəyyənləşdirmişdir ki, bu qarşılaşdırmalarda dilin çoxcəhətliyi öz əksini tapmışdır:

Dil həm fəaliyyət, həm də məhsuldur;

Dil həm kollektivə, həm də xalqa məxsusdur;

Dil həm sabitdir, həm də keçicidir;

Dildə həm obyektivlik, həm də subyektivlik vardır;

Dildə anlama, həm də anlamamadır və s.

Özündən sonrakı dilçiliyin inkişafına da əhəmiyyətli dərəcədə təsir edən V.fon Humboldtun davamçıları dilin fəlsəfi tərəfini müxtəlif istiqamətlərə (bioloji, psixoloji və s.) yönəltdilər. Və həmin

anlayışlar “V.fon Humboldt paradiqması” hesab edilsələr də, onların özünəməxsus cəhətləri də az olmadı.

Humboldt ruhu dilin mənbəyi hesab edirdi: “Dil insan təbiətinin elə dərinliklərindən yaranır ki, ona heç vaxt məqsədyönlü iş, xalqların yaradıcılığı kimi baxmaq olmaz. O, mahiyyətinə görə izaholunmaz olsa da, bizə aydın olan həvəskar prinsipi ilə səciyyələnir və bu baxımdan heç kimin fəaliyyətinin məhsulu deyil, ruhun ixtiyari emanasiyasıdır, xalqlara bir hədiyyə, onlara miras qalmışdır” (Романенко, 2011).

V.Humboltun elmi cazibəsi təkcə onun parlaq intellekti və qeyri-adi erudisiyası ilə deyil, həm də onun dünyagörüşünün özünəməxsusluğu ilə izah olunur. Humboldt əsərlərində irəli sürdüyü problemləri tədqiq edərkən ya birbaşa, yaxud da dolayı yolla ruha istinad edir, çünki “həqiqi və müstəqil başlanğıcın təməlini xalqın mənəvi gücündə olduğunu iddia edir” (Гумбольдт, 2000).

Humboldtun dil fikirləri geniş və kompleksdir və ən müasir müstəqil dil nəzəriyyələrinin inkişafına təsir etmişdir. O, dilin fəlsəfi və mənəvi əsaslarına vurğu edərək dilin təbii inkişafının insanın təfəkkürü ilə əlaqəli olduğunu və dilin sosial və mədəni kontekstdə yarandığını iddia edirdi.

V. Humboldt yazırdı: “Dil anidən birdən-birə yarana bilməz, daha doğrusu, hər şey varlığının hər anında dil üçün xarakterik olmalıdır, bunun sayəsində o, vahid bir bütöv olur”.

Humboldt bu fikirdə dilin birdən-birə meydana çıxa bilməyəcəyini, əksinə dilin varlığının hər anında müəyyən bir xüsusiyyətə malik olması lazım olduğunu iddia edir. Humboldta görə dil varlığın bir hissəsi ilə üzvi şəkildə bağlıdır və dilin strukturu təbiətin bütövlüyünü əks etdirməlidir. Dilin təkamülü və quruluşunu insanın ağlı və mühiti, təbiətlə dərin əlaqəsi formalaşdırır.

Başqa yerdə oxuyuruq: “... birinci söz artıq bütün dilin mövcudluğunu nəzərdə tutur” Burada dilin yaranmasının möcüzəvi təfsiri özünü göstərir. Bu cümlə həm də dilin əsas vahidini vurğulayır və dilin varlığının dilin ilk sözü və ya kökündə olduğuna işarə edir.

V.Humboltun bu sözlərini xatırlayanda onun sirri daha da artır: “Dil fərdin özbaşına yaradıcılığı deyil, həmişə bütöv bir xalqa məxsusdur”.

Bu müddəa dilin ümumi olduğunu və dilin varlığının fərdin yaradıcılığına deyil, topluma aid olduğunu göstərir.

O, “Dillərin müxtəlif inkişaf dövrləri ilə bağlı müqayisəli tədqiqinə dair” əsərində dilin yaranması məsələsini insanın mənşəyi məsələsi ilə əlaqələndirir: “İnsan ancaq dil sayəsində insan olur; dil yaratmaq üçün isə artıq insan olmalıdır. Ona görə də dili əvvəlcədən verilmiş bir şey kimi təsəvvür etmək mümkün deyil...Dil, təbii ki, insandan yaranır”

Bu baxış nöqteyi-nəzərini vurğulayır ki, dilin təkcə praktiki ünsiyyət vasitəsi deyil, həm də insan varlığının dərinliklərində gedən mürəkkəb psixi proseslərlə sıx əlaqəlidir.

Humboldta görə dil insan şüurunun mürəkkəbliyi və sosial qarşılıqlı əlaqələrin dərinliyi nəticəsində yaranıb və inkişaf edib. Buna görə də dilin icad edilə bilməyəcək qədər mürəkkəb olduğunu düşünən Humboldt dilin təbii bir hadisə olduğunu və onun insan şüurunun şüurlu hərəkəti olmadan yarandığını irəli sürdü.

Bu baxışa görə dilin təkamülünə sosial qarşılıqlı təsirlər, intellektual qabiliyyətlərin inkişafı, ətraf mühit amilləri təsir göstərmişdir. Ona görə də dilin yaradılması şüurlu əməl deyil, insan varlığının təbii nəticəsidir.

Humboldt dilin sosial mahiyyətinin funksiyalarını – adlandırma, yəni dilin dünyadakı obyektləri və mədəni vəziyyətləri ifadə etmək üçün bir vasitə olduğu, insanların dil vasitəsilə dünyanı təsvir etdiyi və obyektlərə adlandırdığı, bu adlandırma prosesinin insanların dünyaya baxışını formalaşdırmağa və əlaqə qurmağa kömək etdiyi funksiyasını və kommunikativ, yəni dilin insanların bir-birilə ideyalarını, hisslərini, biliklərini və təcrübələrini ötürməklə ictimai əlaqələri mümkün etdiyi funksiyasını müəyyən edib.

Humboldtun dilin mənşəyi ilə bağlı materialist baxışları onun dünyagörüşünün gücünü təşkil edir. Lakin onun nəzəriyyəsinin metodoloji əsasını idealist fəlsəfə təşkil edirdi. Mütləq “xalqın ruhu” metafizik ideyası alimi aşağıdakı nəticələrə gəlməyə məcbur etdi:

“dil fəaliyyətin məhsulu deyil, ruhun qeyri-ixtiyari ifadəsidir;

Dil “insanda onun üçün tədqiq olunmamış fərdiliyinin dərinliklərindən və ona verilmiş qüvvələrin fəaliyyətindən yaranır” ki, bu da dilin ictimai mahiyyəti haqqında tezisi puç edir.

Humboldt dildə sosial və fərd arasındakı əlaqə məsələsinin həllində də ardıcıl deyildi. O, dildə iki əks keyfiyyəti qeyd edir:

1) hər bir dil, sanki, eyni xalqın ayrı-ayrı nümayəndələrinin sonsuz sayda dillərinə bölünə bilir və
2) bütün dillər toplusu birdir.

Dahi dilçiyə görə, dilin bu xassəsi dilin cəmiyyətdəki fəaliyyətində özünü göstərir: "...dil müstəqil varlığa malikdir və real həyatı ancaq insanlar arasında istifadədə qəbul etsə də, eyni zamanda, mahiyyət etibarı ilə ondan asılı deyildir"

V.Humboldt ideyalarının ən parlaq tərcüməçisi, şübhəsiz ki, A.A.Potebnya olmuşdur. Potebnya Humboldtun dilçilik və fəlsəfə ilə bağlı düşüncələrini daha dərindən və ətraflı şəkildə anlamaq üçün böyük səy göstərmiş, eyni zamanda onun ideyalarını geniş şəkildə yaymağa çalışmışdır. Potebnyanın əsərləri Humboldtun fəlsəfə və dilçilik dünyasındakı yerini vurğulayır, onun ideyalarını daha geniş auditoriyaya çatdırır və onların mənimsənilməsini asanlaşdırırdı. Bununla belə qeyd etmək lazımdır ki, özünün bu ideyalara birbaşa müraciət etdiyi "Düşüncə və dil" kitabında V.Humbolda həsr olunmuş fəsil, əsasən, V.Humbolt təliminin bəzi müddəalarının yalnız ifadəsidir və həmin fəsillə müşayiət olunur.

G.V.Ramişvili son vaxtlar Vilhelm fon Humboldtun nəzəri konsepsiyasının tədqiqi istiqamətində xeyli iş görmüş, onun nəzəri ideyalarına mühüm töhfə vermiş alimdir. Onun silsilə əsərlərində Humboldtun mədəniyyətin dil vasitəsilə ifadəsi, bəşəri ideyaların formalaşması, dilin mahiyyəti haqqındakı fikirləri ətraflı təhlil edilir.

Azərbaycan dilşünas alimlərindən Vilhelm fon Humboldt haqqında tədqiqat aparan bir neçə alim vardır. Bu alimlər Humboldtun dilin mahiyyəti ilə bağlı orijinal konsepsiyalarını, mədəni çoxdilliliyin zənginliklərini və dilin insan fikirlərinin formalaşmasında oynadığı rolu ətraflı şəkildə araşdırıblar. Belə alimlərimizdən biri də Əbülfəz Rəcəblidir. Alimin "Vilhelm fon Humboldt ümumi dilçiliyin banisi kimi" kitabı V.Humboldtun dilçilik konsepsiyalarının təhlilinə həsr edilib. Bu kitabda Humboldtun dilin mahiyyəti, insan təfəkkürünün formalaşmasında dilin rolu, mədəniyyətin dil vasitəsilə ifadəsi haqqında fikirləri ətraflı araşdırılır. Kitabın müəllifi Humboldtun dilçiliyə təsirini, onun dil və mədəniyyət fəlsəfəsindəki mövqeyini dərindən araşdırır, onun dilçilikdəki əhəmiyyətini vurğulayır. Bu əsər dilçilər və filosoflar üçün dəyərli mənbə kimi qiymətləndirilir (Rəcəbli, 2004).

V.Humboltun nəzəriyyələrinin fəlsəfi əsaslarını düzgün dərk etmək və qiymətləndirmək üçün onlarda Kant elementləri axtarmaq yox, onu sadəcə olaraq Fixte, Şleqel qardaşları, Şiller, Höte, Şlimaxer, Hegel kimi müasirləri ilə bir sıraya qoymaq lazımdır" (Постовалова, 2001).

Dil və təfəkkürün qarşılıqlı asılılığı V.Humboltun dillə bağlı bütün əsərlərində daim mövcuddur. Lakin o, bu mövqeyi son dərəcə aydın şəkildə ifadə etməyi zəruri hesab edir və yazır: "Dil düşüncəni formalaşdıran orqandır... Ona görə də təfəkkür və dil fəaliyyəti qırılmaz vəhdət təşkil edir".

V.Humboldt bu müddəa ilə məhdudlaşmır və qeyd edir ki, dil yeni biliyin yaradılmasında (təfəkkürlə birlikdə) fəal iştirak etdiyindən, dilin cəmiyyətin xidmətində olması və ondan kənarda ağlasığmaz olması səbəbindən onları obyektivləşdirir. O: "Hətta insanların bir-biri ilə ünsiyyət ehtiyaclarına gəlincə, belə iddia etmək olar ki, dil insanın tam təcrid vəziyyətində belə düşünmək üçün məcburi şərtdir. Amma reallıqda dil həmişə yalnız cəmiyyətdə inkişaf edir və insan özünü o qədər dərk edir ki, onun sözləri başqaları üçün də başa düşüləndir".

V.Tomsen V.Humboltu "Almaniyanın ən böyük adamlarından biri" adlandırırdı. Mikelancelo, Leonardo da Vinçi, Nyuton, Şekspir, Höte, Eynşteyn, Tolstoy kimi əzəmətli şəxsiyyətləri bir xalqa deyil, bütün bəşəriyyətə məxsus saymaq ümumiyyətlə qəbul edilir. Vilhelm fon Humboldt bu yüksək rütbədə yer almağa layiqdir. Həqiqətən də, Vilhelm fon Humboldtun dilçiliklə bağlı ideyaları onu bəşəriyyət tarixinin ən böyük şəxsiyyətləri arasında yüksək rütbədə yer almağa layiq edir.

## NƏTİCƏ

Dəyişən fikir və ideyalar aləmində Vilhelm fon Humboldtun elmi əsərləri ilə tanışlıq onun bütün səylərinin dilin çoxşaxəli və son dərəcə mürəkkəb təbiətini dərk etməyə yönəldiyini təsdiqləyir. Humboldt iddia edirdi ki, dil təkcə ünsiyyət vasitəsi deyil, həm də insan düşüncəsinin və mədəniyyətinin ifadəsi üçün mühüm vasitədir. Onun fəlsəfi və linqvistik baxışları dilin insan düşüncəsini necə formalaşdırdığı, mədəniyyəti ifadə etdiyi, dilin təbiəti haqqında dərin düşüncələri əks etdirir. Vilhelm fon Humboldt dilin öyrənilməsi və dilin insan təfəkkürünü necə formalaşdırdığına dair fikirləri ilə tanınan görkəmli alim idi. Humboldtun əsərləri dilçilik və mədəniyyət fəlsəfəsində dərin mübahisəli məsələlərin mərkəzində dayanır və müasir fikir dünyasında hələ də mübahisə mənbəyidir.

**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT**

Cəfərov Qismət (2020). "Ümumi dilçilik etüdləri". Bakı, "Elm və təhsil", 168 s.

Rəcəbli, Ə.Ə. (2004). "Vilhelm fon Humboldt – ümumi dilçiliyin banisi kimi". Bakı, Nurlan, -104 s.

Гумбольдт, В. Фон (2000). "Избранные труды по языкознанию: пер. С нем./ общ." Ред. Г. В. Рамишвили. М.: Прогресс, 400 с.

Постовалова В.И. (2001). "Язык как деятельность. Опыт интерпретации концепции В. Гумбольдта". М., 223 с.

Романенко Е. К. (2011). "Философия языка В. Фон Гумбольдта и ее влияние на философско-лингвистические, этнопсихологические и антропологические учения в Германии XIX – XX вв"., автореферат диссер... канд. Филос. Наук. Москва, 270 с.

# XIX-XX ƏSRLƏR BRİTANİYA MÜSTƏMLƏKƏ ƏDƏBİYYATI

**Süleymanova Günay**
Azərbaycan Dillər Universiteti
Ingilis Dilinin Leksikologiyasi və Üslubiyyati Kafedrasi
gunayshakir83@gmail.coml
BAKI, AZƏRBAYCAN

**SUMMARY**

Relevance of the research: The literature on British colonialism is vast and varied and reflects the changing nature of the colonial problem. The purpose of the study: A number of studies have been conducted to compare the goals set in the colonial policies of the states, the success achieved in these goals, and the administrative and other mechanisms used. Scientific novelty of the study: In the interwar decades, a relatively new topic of international control over the colonial powers appeared in the colonial literature, but since 1945 it has been replaced by the processes and problems of decolonization, the means of ensuring economic and political development. The transition from the last stages of colonialism to independence has been studied in a number of cases, but remains an extraordinarily rich area of research. Practical significance of the research: Now that colonialism has effectively ended, it is possible to examine in depth and in detail what kind of colonial system produced the best results, but before examining this question, it is necessary to define the scale of colonialism's measurable values.

**AÇAR SÖZLƏR:** Britaniya, müstəmləkə, koloniya, ədəbiyyat, Cozef Konrad, İsak Dinesen, E. M. Forster, H. Rider Haqqard, Rudyard Kipling, Olive Schreiner;

## GİRİŞ

Tədqiqat işinin aktuallığı: Britaniya müstəmləkəçiliyindən bəhs edən ədəbiyyat geniş və rəngarəngdir və müstəmləkə probleminin dəyişən xarakterini əks etdirir. Tədqiqatın məqsədi: Dövlətlərin müstəmləkəçilik siyasətlərində qarşıya qoyulan məqsədləri, bu məqsədlərə nail olunan uğurları, istifadə edilən inzibati və digər mexanizmlər baxımından müqayisə etmək üçün bir sıra araşdırmalar aparılmışdır. Spektrin hər iki ucunda müstəmləkələrin əldə edilməsinin arxasında yatan motivlər və müstəmləkəsizliyin indiki dalğasına aparan qüvvələrin qiymətləndirilməsini araşdırma üçün bir sıra mənzərələr açır. Tədqiqatın elmi yeniliyi: Müharibələr arası onilliklərdə müstəmləkəçilik ədəbiyyatında müstəmləkəçi dövlətlər üzərində beynəlxalq nəzarətin nisbətən yeni mövzusu meydana çıxdı, lakin 1945-ci ildən bu, müstəmləkəsizləşdirmə prosesləri və problemləri, iqtisadi və siyasi

inkişafın təmin edilməsi vasitələri ilə əvəz olundu. Müstəmləkəçiliyin son mərhələlərindən müstəqilliyə keçid bir sıra hallarda tədqiq edilmiş, lakin hələ də qeyri-adi zəngin araşdırma sahəsi kimi qalır. Tədqiqatın praktiki əhəmiyyəti: Artıq müstəmləkəçilik faktiki olaraq sona çatdığından hansı növ müstəmləkə sisteminin ən yaxşı nəticələr verdiyini dərindən və ətraflı araşdırmaq mümkün olur, lakin bu sualı araşdırmadan əvvəl müstəmləkəçiliyin ölçülə bilən dəyərlər miqyasını müəyyənləşdirmək lazımdır.

İmperializmin məqsəd və nəticələrinə diqqət hər zaman müstəmləkəçi ədəbiyyatın təkrarlanan mövzusu olub. Siyasi termin olaraq, imperializm öz siyasi və iqtisadi üstünlüyü üçün məskunlaşmış və ya məskunlaşmamış müstəmləkələr əldə edərək ölkədən kənarda siyasi hökmranlığı ehtiva edir. Avropalılar əsrlər boyu imperialist fəaliyyətdə iştirak etsələr də, XIX əsrin sonlarında İngiltərə, Fransa, Belçika və Almaniya da daxil olmaqla imperiya gücləri öz müstəmləkələrini artırmaq üçün şiddətlə rəqabət aparmağa başladılar, nəticədə yüksək aqressivlik və əvvəllər müstəqil olmuş ərazilərə daha çox müdaxilə ilə nəticələndi. İqtisadi motivlərlə yanaşı, imperializm, Avropanın "üstün" ağ irqinin digər qitələrdə yaşayan "az inkişaf etmiş" rəngli xalqlara sivilizasiya gətirməli olduğuna dair geniş yayılmış, özünü doğrultmuş inamdan qaynaqlanırdı. Müstəmləkəçi ədəbiyyat hətta ən rəğbətli avropalıların da ikili münasibətinə uyğun olaraq, çox vaxt eyni zamanda bu inamı həm təsdiq edir, həm də tənqid edir. Məsələn, Dinesenin "Afrikadan kənarda" əsəri irqçi əsər kimi qınansa da, afrikalıların müsbət təsvirinə görə tərifləndir. Bu cür ziddiyyətli mütaliələr mövcud ola bilər, çünki kitab, müstəmləkəçiliyin bir çox digər əsərləri kimi, hər iki fikri ehtiva edir(Horton1995).

Müstəmləkəçilik Britaniya sərhədlərini yenidən müəyyənləşdirdi. Britaniya İmperiyası böyüdükcə, o, öz sərhədlərini yer kürəsinin daha böyük bir hissəsi üzərində çəkməyə başladı və ən böyük halda dünyanın dörddə birinə nəzarət etdi. Bu nəzarət ingilislərin qürur mənbəyi olsa da, Britaniyanın milli kimliyinə də təhlükə idi: hindular, afrikalılar və Qərbi və Şərqi Hindistanın sakinləri Britaniyaya tabe idilərsə, onlar da Britaniyalı idilər?! Ama əgər belə deyilsə, Britaniyanın milli kimliyini kim təşkil edirdi?! Müstəmləkə müəllifləri bəzən Mansfildin qısa bədii hekayələrində və ya Forsterin "Hindistana keçid" əsərində olduğu kimi ingilis müstəmləkəçilərinin Britaniya adət-ənənələrindən asılılığını təsvir edirlər. Kiplinq kimi digərləri də, müstəmləkəçilərlə müstəmləkəçi ölkələr arasındakı aradan qaldırıla bilməyən fərqi göstərmək üçün yerliləri və onların adətlərini ekzotik təsvir etməkdə məharətli idilər. Bu mövzuya "Kim", "Lord Cim" və "Qaranlığın Ürəyi" kimi əsərlərdə də rast gəlinir.( Kael,1985)

Tədqiqat işi xülasə(summary), açar sözlər, giriş, tədqiqat metodu, nəticə və ədəbiyyat siyahısından ibarətdir.

## TƏDQİQAT METODU

Müstəmləkəçilik, ilk növbədə, Britaniya ədəbiyyatının xüsusiyyətidir, nəzərə alsaq ki, ingilislər imperiya dövründə hökmranlıq edirdilər; hətta başqa millətlərdən olan müstəmləkə yazıçıları tez-tez ingilis dilində və ya ingilis tarixinə uyğun yazırdılar. Müstəmləkəçilik ədəbiyyatı imperializmin əxlaqı, bəşəriyyətin təbiəti və Avropa sivilizasiyasının davamlı canlılığı fonunda güclü qeyri-müəyyənlik hissi ilə xarakterizə olunur. Ola bilsin ki, əsas müstəmləkə tənqidi məqalə Cozef Konradın"Qaranlığın Ürəyi"dir ("Heart of Darkness" ), lakin Olive Schreiner-in "Afrika Torpağının Hekayəsi"( "Story of an African Farm") və E. M. Forster-in "Hindistana Dəhliz"("A Passage to India") kimi əsərlər eyni şəkildə müstəmləkəçiliyin paradokslarını araşdırır. Müstəmləkə ədəbiyyatı da Rudyard Kipling-in detektiv trilleri "Kim"də və ya H. Rider Haggardın macəra nağıllarında təsvir olunduğu kimi yüksək macəra, romantika və həyəcanla doludur. İsak Dinesenin xatirələri, o cümlədən Out of Africa, müstəmləkə mənzərəsinin vəhşiliyini və macəraçı müstəmləkəçilərin qəhrəmanlığını eyni şəkildə romantikləşdirir.

Kraliça Elizabetin dövründə İngiltərə iqtisadi və hərbi tərəfdən super güc oldu. Bunun nəticəsində İngiltərə həm Asiya, həm də Afrikadakı bir çox koloniyalar üzərində hökmranlıq edirdi. Bu iki qitədə İngiltərə bir çox şirkət qurdu, məsələn Hindistanda Şərq şirkəti və Afrikada Kral Afrika Şirkəti. Zamanla ölçüsü artan ,genişlənən bu şirkətləri və koloniyalardakı digər ticarət məskənlərinin varlıqlarını qorumaq üçün hərbi güc bu lazım idi. Ona görə də XVIII əsrin ortasından başlayaraq Britaniya müstəmləkəçilik siyasəti həm ticarət və həm də hərbi xarakter daşıyan oldu. Zamanla bu

ticarət şirkətləri istehsallarını təhlükəsiz etmək üçün hərbçilər tərəfindən qorunan sənaye qəsəbələrinə çevrildi.

Müxtəlif koloniyalar üzərində hegemonluğunu qoruyub saxlamağı düşünən Brtaniya Dövləti başqa xalqlar üzərində hökmranlığının arxasında duran əsl məqsədləri ört-basdır etmək üçün maskalanmasının zəruriliyini hiss etdi.Nəticə etibarı ilə kolonializmin əsas məqsədinin əxlaqı və dini istifadə etməklə Avropalıları və müstəmləkə dövlətlərinin yerli xalqlarını, məhz müstəmləkəyə məruz qalmış insanları mədəniləşdirməyə və onları mədəniyyət işığına çıxardacağına inandırmaq oldu. Britaniya müstəmləkəçiliyi rifah, azadlıq və təhsilə doğru özünü bu ölkələrin ali lideri kimi təsəvvür edirdi.

Dini tərəfdən isə müxtəlif dini dairələr Britaniya müstəmləkəçiliyinin arxasındakı əsas məqsədin bu koloniyalardakı ibtidai insanların ruhlarını xilas etmək və onlara Müqəddəs Kitab Bibliyanı öyrətmək olduğunu vurğulayırdılar. Ən yaxşı nümunə İngilis müstəmləkəçiliyinin Kenterberi arxiyepiskopunun(1848-1882) xalqına müjdəni öyrətmək missiyası kimi təsvir olunurdu. Halbuki James Anthony Froude (1818-1892) bu məsələni başqa cür əsaslandırırdı. O İngilis müstəmləkəçiliyinin ən yaxşısı üçün təbii qanunun üstünlüyünə yalnız bir cavab olduğunu və İngilislərin fiziki keyfiyyətləri ilə başqa xalqlardan üstün olduqlarını və digər xalqlara hakim olmaq imkanı verən cəsarətləri olduğunu qeyd edirdi.

Böyük Britaniya İmperatorluğu bu parlaq iddiaları ilə güc və bütün dünyanın xilaskarı, ingilis müstəmləkəçisi müxtəlif koloniyaları amansız istismarını ört-basdır edərək bir sıra ölkələri fəth edərək hökmran oldu. Ancaq mövzuya toxunmazdan əvvəl Müstəmləkəçilik, Müstəmləkə Ədəbiyyatı və Müstəmləkəçi Ədəbiyyatı kimi bəzi terminlərin tərifini vermək məqsədəuyğun görünür.

Müstəmləkəçilik: təxminən 1500cü ildə başlayan, dünyanın müxtəlif yerlərini fəth etmiş, orada məskunlaşmış və oranı istismar etmiş müxtəlif Avropa ölkələrinin kəşf etdiyi siyasi-iqtisadi hadisədir(Meckens,1985). Müstəmləkə ədəbiyyatı: müstəmləkə dövlətində doğulub böyüyən bir ingilisin müstəmləkəçi icmanın üzvü kimi öz cəmiyyəti haqqında bədii əsərlər yazaraq ərsəyə gətirdiyi bir ədəbiyyat növüdür. Bu cür ədəbiyyat müstəmləkəçiliyi dəstəkləyir və başqa millətlərə qarşı amansız istismarı kamuflyaj edir. Rudyard Kiplinqin Kim (1901) romanı bu cür bədii ədəbiyyata yaxşı nümunə ola bilər.( Meckens,1985). Müstəmləkəçi ədəbiyyat: müstəmləkəçi bir millətin vətəndaşları tərəfindən öz ölkələrindəki insanlar üçün müstəmləkəçilik hərəkatı haqqında yazılmış ədəbiyyat növüdür. Ən yaxşı nümunə Forsterin "A Passage to İndia" əsəridir (1924)( Meckens,1985).

Avropalıları və müstəmləkə dövlətlərinin yerli sakinlərini müstəmləkəçiliyin məqsədinin humanitar və onların xeyrinə olduğunu inandırmaq üçün ədəbiyyatdan təbliğat vasitəsi kimi geniş istifadə edilirdi. Ona görə də müstəmləkəçilikdən bəhs edən ədəbiyyat geniş və rəngarəng olaraq müstəmləkə probleminin dəyişən xarakterini əks etdirir.

Daniel Defo (1660-1731) İngilis hökumətində çox əhəmiyyətli bir məsləhətçi idi. Gizli agent kimi xidmət etdiyi müddətdə o İngilis Əbdül-Cabbar Casim Məhəmməd romanında kolonizasiya mövzusu olan müxtəlif layihələr, təkliflər və siyasi ideallar təqdim edir və bunlar hökumət tərəfindən İngiltərə İmperiyasının çiçəklənməsi naminə davamlı olaraq qəbul edilir. Defonun Britaniya İmperiyasına olan sədaqəti işinə qarşı bəslədiyi böyük heyranlığı əks etdirir. Üstəlik, onun İngilis xalqının gücünə güclü inamı var idi. Defo hesab edir ki, əsl bir ingilis çətinliklərlə əyilməz olaraq üzləşir, asanlıqla məğlub olmur. Defonun izah etdiyi kimi İngilislər, özünəməxsus nailiyyət və qeyri-adi dözümlülük qabiliyyət duyğularından həzz alırlar. Bu fikirlər Defonun bir çox kitabçalarında, esselərində və məqalələrində öz əksini tapmışdır. Amma onlar daha qabarıq şəkildə Defonun Robinson Kruzo (1719) romanında görünür ( Baker,1967).

Robinzon Kruzo öz etiqadlarını tərənnüm edən və bu hərəkatın bütün mühüm xüsusiyyətlərini özündə cəmləşdirərək təcrid olunmuş torpaqların kəşfi, bu yerlərin becərilməsi, bu koloniyaların ibtidai sakinlərinə azadlıq və hörmət vədi ilə, ingilis millətinin digərlərindən üstünlüyü fikri ilə XVIII əsrdə "ingilis müstəmləkəçiliyi üçün təbliğat" hesab edilirdi. Bu, ispaniyalı ilə söhbətində aydın görünür.

Müasir ingilis dilində yeni sözlər müxtəlif prinsiplər əsasında yaranmışdır. Bir çox dilçilər qeyd edirlər ki, indiki dövrdə dilə qənaət prinsipi hökm sürür. Həyatın getdikcə gərginləşən tempi və buna görə də getdikcə kəskinləşən zaman qıtlığı, sosioloqların qeyd etdiyi kimi, 21-ci əsrdə zaman qavrayışının dəyişməsinə səbəb oldu (Ismoilova, Shamsiddinova, Maxsudova & Turgunova, 2023).

Yeni sözlərin təhlili zamanı ilk növbədə sözlərin hansı nitq hissəsinə mənsub olduğunu müəyyən etmək lazımdır (Fiqur 1).

Fiqur 1. Neologizmlərin quruluşu

Diaqramda göstərilir ki, neologizmlərin əksəriyyəti (65%) isimlərdir. İkinci böyük qrup (23%) sifətlərdir. Felləri üçüncü ən böyük qrupdur (7%). Dördüncü qrup (3%) zərflərdən ibarətdir. Sonrakı beşinci yerdə (1,4%) nidalardır. Əvəzliklər altıncı qrupu təşkil edir (0,4%) və son olaraq, sözönüləri yeddinci yerdədir (0,2%) (Murugova & Evtushenko, 2023).

İsim-neologizmlərin əhəmiyyətli üstünlüyü ingilis dilində danışanların ətrafdakı reallıqları təyin etmək ehtiyacını göstərir. Məhz yeni yaradılmış isimlər vasitəsilə onlar ətraf aləmdə baş verən proseslərə münasibət bildirə bilərlər. Eyni zamanda neologizmlərin yaranması söz yaradıcılığının inkişafına təkan verən ən başlıca amildir.

**NƏTİCƏ**

Neologizmlərlə bağlı mülahizələri yekunlaşdıraraq qeyd etmək olar ki, dil prosesləri keçmiş dövrlərlə müqayisədə sürətlə gedir, bir neçə gün ərzində nə qədər yeni söz yaranır. Halbuki qədim zamanlarda bir neçə il ərzində yeni sözlər meydana gəlirdi. 21-ci əsrdə dil sanki davamlı hərəkət içərisindədir. Əgər dil xalqın həyatının əksidirsə, o zaman güman etmək olar ki, yeni sözlər cəmiyyətin əksəriyyətinə nə qədər qeyri-adi və gülünc görünsə də, başlanğıcda təsadüfən yaranır və populyarlaşmır. Onların görünüşü təbiidir, çünki özləri ilə yeni ideyalar və dəyərlər gətirirlər.

Neologizmlər eyni zamanda dillər və mədəniyyətlər arasında körpü rolunu oynayır və dünyaya inteqrasiya etməyə təkan verir.

Bəzi yeni sözlər sadəcə olaraq müəyyən məna daşıyan yeni terminə ehtiyac olduğu və ya danışanların bəzi sözləri digərlərindən daha asan qavradığı üçün dilə daxil edilir. Son zamanlarda, texnologiya və elm kimi sahələrdə baş verən çoxlu inkişaflar və bütün dünyanı heç vaxt olmadığı qədər təmasda saxlayan vasitə olan internetin yaranması səbəbindən ingilis dilinə bir çox neologizmlər əlavə edilmişdir. Bundan əlavə, reklam kimi bir çox başqa sahələrdə yeni və cəlbedici görünmək üçün neologizmlərdən istifadə edilməyə başlanılıb və COVID-19 pandemiyası da neologizmlərin mənbəyi olub.

Bir sözlə, bu məqalə ingilis dilində neologizmlərin yaradılması və onların söz ehtiyatının artmasında rolu haqqında ümumi məlumat vermişdir. Mən inanıram ki, neologizmlər və xüsusən də qloballaşmanın neologizmlərin yaranması və yayılmasına təsiri ilə bağlı daha çox tədqiqatlar aparılacaqdır.

**ƏDƏBİYYAT SİYAHISI**

Almardonova, M. & Alimova, G. (2023). Neologisms In The English Language In The 21stcentury. Multidisciplinary Scientific Journal, 95-97.

Ismoilova, K. R., Shamsiddinova, G. Z., Maxsudova N. A. & Turgunova.

M. Z., (2023). Neologism in English Language and Its Influence on Linguistics. Journal of Advanced Zoology, 1790-1793.

Murugova, E. & Evtushenko, S. (2023). Neologisms and its role in the development of. International Scientific Conference Ecological and Biological Well-Being of Flora and Fauna (pp. 1-3). Rostov-on-Don: EDP Sciences.

# İNGİLİS VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ MÖVCUD OLAN SLENQLƏRİN MÜQAYİSƏLİ-TİPOLOJİ TƏHLİLİ

**Gülnar Həsənova**
Sumqayıt Dövlət Universiteti
Xarici dillər kafedrası
gulnar.hasanova@sdu.edu.az
SUMQAYIT, AZƏRBAYCAN

**XÜLASƏ**

Dil, tarixi və sosial əlamətlərdə kompleks bir anlayışa malikdir və bu günə qədər bir çox alim və dilçilər tərəfindən müxtəlif təriflər və məna vermə yolları mövcuddur. Bəziləri dilin bioloji, bəziləri psixoloji, bir qismi isə sosioloji hadisə olduğunu iddia edir. Dil, insanların bir-biri ilə ünsiyyət qurmasında əhəmiyyətli bir rol oynayaraq həm bioloji, həm psixoloji, həm də sosioloji bir hadisədir. Dil, insanları digər canlılardan fərqləndirən ən böyük amildir. Hazırda dünya ərazisində bir çox dil mövcuddur və bu sayın dəqiqliyi ilə bağlı tam məlumat yoxdur. Lakin təxminən yeddi min dil olduğu düşünülməkdədir. Günümüzdə İngilis dili dünyada ən geniş yayılmış dillərdən biridir. İngilis dili diplomatikada, ticarətdə, dənizçilikdə, elmi-texniki sahələrdə və informasiyanın yayılmasında əsaslı rol oynar. Bir çox ölkədə, dərs müəssisələrində əsas xarici dil kimi dərs verilir.

Araşdırmalar aparan Naom Xomski, "Ümumi Dil Qrammatikası" nəzəriyyəsini təqdim etmiş və müxtəlif dillərdə ortaq cəhətləri vurğulamışdır. İngilis və Azərbaycan dilləri arasında qrammatik və sözdüzəltmə proseslərində bir çox oxşar cəhətlər mövcuddur. Hər iki dil də slenqlərə malikdir və onların əsas funksiyaları eynidir. Slenqlərin quruluşuna görə növləri sadə, düzəltmə və mürəkkəb

olmaqla üç yerə ayrılır. İngilis dilində müstəqil slenqlər üçün bir təsnifat mövcuddur, lakin Azərbaycan dilində buna rast gəlinmir. Aparılan tədqiqatlar, iki dilin slenqlərinin bir-biri ilə oxşar və fərqli cəhətlərə malik olduğunu göstərir.

**AÇAR SÖZLƏR:** ingilis dili, Azərbaycan dili, slenqlər, oxşar cəhətlər, fərqli cəhətlər

**SUMMARY**

Language has a complex concept in historical and social signs, and to this day there are various definitions and ways of giving meaning by many scholars and linguists. Some argue that language is a biological, some psychological, and some sociological phenomenon. Language is a biological, psychological, and sociological phenomenon, playing an important role in how people communicate with each other. Language is the biggest factor that differentiates humans from other living things. Currently, there are many languages in the world, and there is no complete information about the accuracy of this number. But it is thought that there are about seven thousand languages. Today, English is one of the most widely spoken languages in the world. English plays a fundamental role in diplomacy, trade, maritime, scientific and technical fields and information dissemination. In many countries, a foreign language is taught as the main language in educational institutions.

Researcher Naomi Chomsky introduced the theory of "Common Language Grammar" and emphasized the common features of different languages. There are many similarities between English and Azerbaijani languages in terms of grammar and word-editing processes. Both languages have slang and their basic functions are the same. According to the structure of slang, its types are divided into three types: simple, correction and complex. There is a classification for independent slangs in English, but not in Azerbaijani. Studies have shown that the slangs of the two languages have similar and different aspects.

**KEY WORDS**: English language, Azerbaijani language, slangs, similarities, differences

## GİRİŞ

Dilin müxtəlif cəhətləri haqqında tədqiqat, dilçilər arasında geniş maraq doğurmuşdur. Dil, bioloji, psixoloji və sosioloji tərəfindən müxtəlif baxış açıları ilə təhlil edilmişdir. Dünyada bir çox dil mövcuddur, lakin saylarının dəqiqliyi müəyyən edilməmişdir. Dil, insanlar arasında əlaqə qurmaqda əsas rol oynar və insanları digər canlılardan fərqləndirən əsas amildir. Slenqlər, dilin dinamikasını və sosial əlaqələri öyrənmək üçün əhəmiyyətli bir obyekt kimi diqqət çəkmişdir. İngilis və Azərbaycan dillərində slenqlərin müxtəlif xüsusiyyətləri və istifadəsi araşdırılmışdır. Slenqlər, vulqarizmlərdən fərqli olaraq, daha çox informallığı təmsil edir və fikirlərin daha qısa şəkildə ifadə olunmasına kömək edir. Tədqiqat, slenqlərin semantik xüsusiyyətlərini və dilin dinamikasını anlamaq məqsədilə aparılır. İngilis və Azərbaycan dillərindəki slenqlərin müqayisəli analizi, dilin universallığı və xüsusiyyətləri haqqında yeni fikirlər verir. Tədqiqatın əhəmiyyəti, dilin evolyutsiyasını və insan əlaqələrini daha yaxından anlamağa kömək edir. Tədqiqat işinin nəzəri metodoloji bazasını bilavasitə kontekstual təhlil, koqnitiv-linqvistik təhlil təşkil edir. Bu metodun köməyi ilə slenqlərin onomasioloji tipologiyası (üniversal və xüsusi hadisə olması) aydınlaşdırılır.

İngilis və Azərbaycan dillərində işlənən slenqlərin fərqli və oxşar cəhətləri

Dil çox mürəkkəb bir anlayış olub, bütün dövrlərdə bir çox alim, tədqiqatçı və dilçilərin maraq dairəsində olmuşdur. Dil haqqında müxtəlif təriflər, anlayışlar formalaşmışdır. Bəzi alimlər dili bioloji, bəziləri psixoloji, bir qismi isə sosioloji hadisə kimi dilin izahını verməyə çalışmışlar. Dil həm bioloji, həm psixoloji, həm də sosioloji hadisə olub insanların bir-biri ilə ünsiyyət qurmasında aparıcı rola malikdir. Və bugünə qədər bir çox alimlərin də vurğuladığı kimi, dil insanları digər canlılardan fərqləndirən ən böyük amildir. Dünyada bir çox dil mövcuddur. Bugünə qədər aparılan araşdırmaların çoxluğuna baxmayaraq, hələ də dünyada mövcud olan dillərin sayını dəqiq demək mümkün deyildir. Aparılan çoxsaylı araşdırmalardan sonra bu sayın təxminən yeddi min olduğu fikri bildirilmişdir. Günümüzdə ingilis dili dünyada ən geniş yayılmış dillərdən biridir. Ingilis dili dünyada diplomatiya, kommersiya, dənizçilik, elmi-texniki və kütləvi informasiya dili kimi məşhurdur. Hazırda ingilis dili Respublikamızda əsas xarici dil kimi bir çox təhsil müəssisələrində tədris olunur.

Dünya dilləri üzərində araşdırmalar aparan Naom Xomski özünün “Universal Qrammatika” nəzəriyyəsində müxtəlif dillərdə ortaq cəhətləri qeyd etməyə çalışmışdır.

Bildiyimiz kimi, İngilis dili flektiv, Azərbaycan dili isə iltisaqi və ya aqlütinativ dil qrupuna aiddir. Lakin fərqli dil qruplarına mənsub olmalarına baxmayaraq, bu dillərin qrammatikasında bir çox

aspektlərdə oxşar cəhətlər mövcuddur. Məsələn, dilin əsas nitq hissələri hər iki dildə eyniyyət təşkil edir: isim, sifət, say, feil, əvəzlik və zərf. Bir digər oxşarlıq sözdüzəltmə prosesində özünü göstərir. Belə ki, hər iki dildə yeni söz düzəldərkən həm prefikslərdən, həm də suffikslərdən istifadə olunur və s.

Azərbaycanda müasir İngilis və Azərbaycan dillərinin müqayisəli təhlilini aparan bir çox alim və tədqiqatçıların adlarını qeyd etmək olar. O.İ.Musayev, N.Vəliyeva, E.Hacıyev, A.Hüseynov, D.Yunusov, J.Axundov, Z.Verdiyeva, F.Veysəlov (Veysəlli), N.Yusifov, S.Abdullayev bu bir-birindən xeyli fərqlənən iki dilin müqayisəli təhlilini aparmış və öz elmi əsərlərində bu mövzu ilə bağlı maraqlı faktlar qeyd etmişlər.

Təqdim olunan buraxılış işinin bu hissəsində də biz slenqlərin bu müqayisə olunan dillərdə istifadəsinin fərqli və oxşar cəhətlərini göstərməyə çalışacağıq.

İngilis və Azərbaycan dilində slenqlərlə bağlı ilk oxşarlıq da elə burdan başlayır. Belə ki, həm ingilis dilində, həm də Azərbaycan dilində slenqlər cəmiyyətin müəyyən peşə və insan qrupları tərəfindən yaradılan və onlar tərəfindən başa düşülən ifadə və sözlərə deyilir. Hər iki dildə də slenqlərin əksəriyyəti qeyri-ədəbi dilə, qeyri-rəsmi danışıq dilinə aid olub, ədəbi dilə, yazı dilində, rəsmi danışıq dilinə aid deyildir.

Hər iki dildə də slenqlər ilk öncə neologizm, daha sonra ümumişlək söz və ən sonda arxaizm ola bilər, və ya dildə qəlibləşərək sabit mövqe tuta bilər.

Hər iki dildə də slenqlərin dildəki funksiyaları öz səmimiyyətlərini qarşı tərəfə göstərmək, dildə gülüş və ya istehza yaratmaq, müəyyən qruplarda gizlilik və məxfiliyə nail olmaq, fikrin uzun-uzadı ifadə edilməsindən yayınaraq daha qısa şəkildə deyilməsinə şərait yaratmaq və s.-dən ibarətdir.

Həm ingilis, həm də Azərbaycan dillərində slenqlərin quruluşuna görə növləri sadə, düzəltmə və mürəkkəb olmaqla üç yerə ayrılır. Onlar içərisində ən çox istifadə olunanları mürəkkəb slenqlər hesab edilir (Musayev, 2003).

Ingilis dilində mövcud olan slenqlərlə Azərbaycan dilində mövcud olan slenqlərin istifadəsində oxşar cəhətlərlə yanaşı, bir sıra fərqli xüsusiyyətlər də mövcuddur. Belə ki, ingilis dilində istifadə olunan slenqlər sırf ingilis mədəniyyəti, ingilis cəmiyyətinin sosial təbəqələrinin özünəməxsus həyat və düşüncə tərzi, məişəti, adət və ənənələri ilə bağlıdır. İngilis slenqlərinin digər dillərin, o cümlədən də Azərbaycan dilinin daşıyıcıları tərəfindən anlaşılmaması məhz bu milli xüsusiyyətlərlə bağlıdır (Abu, 2004). Bu milli xüsusiyyətlər əsrlər ərzində ingilisdilli xalqlar tərəfindən mənimsənilmiş, onların dillərində cilalanmış və ingilisdilli cəmiyyətlərin nümayəndələrinin başa düşdükləri obyekt və anlayışları ifadə etmişdir. Təbii olaraq, ingilisdilli xalqların həyat və düşüncə tərzində əks olunan bu məfhum və gerçəkliklərin ifadə olunduğu söz və ifadələri digər dillərin daşıyıcıları birdən-birə anlaya bilmir və təbii olaraq onların daşıdıqları mənanın anlaşılması müəyyən izahat tələb edir. Misal üçün, ingilis dilinin Amerika variantında istifadə olunan hindu mənşəli toboggan («xizəyin bir növü») sözünün Azərbaycan dilində birbaşa leksik ekvivalenti yoxdur, çünki həmin obyektin özü, yəni xizəyin bu növü azərbaycanlıların məişəti üçün xarakterik deyildir. Bu səbəbdən də ingilis mətnində rast gəlindiyi halda bu sözün Azərbaycan dilinə tərcüməsi yalnız təsvir (Amerika hindularına məxsus xizək növü) yolu ilə mümkün olur (Hacıyeva, 2014).

Slenqlər ingilis dilində və eləcə də ingilis dilinin variantlarında geniş işlənən metaforik ifadələrin bir qolunu təşkil edir. Bu ifadələr nitqi canlı, emosional, təsirli, ifadəli etmək məqsədi ilə istifadə olunur və öz yığcamlığı, lakonikliyi ilə seçildiyindən, ingilisdilli əhalinin geniş qrupları tərəfindən işlədilir və göstərilən bədii xüsusiyyətlərinə görə ingilis dilinin lüğət tərkibində geniş təmsil olunur. Slenqlərin qeyd olunan bədii və linqvistik əhəmiyyəti Qərb dilçiliyində onların dərin tədqiqinə yol açmış, ingilisdilli ölkələrdə slenqizmləri əhatə edən sözlüklərin meydana çıxmasına səbəb olmuşdur. Bu fakt ingilis dilində slenqləri Azərbaycan dilindəki slenqlərdən fərqləndirən başqa bir nüansdır ki, Azərbaycan dilində slenqlərin elə geniş tədqiqatı aparılmamışdır və bu barədə lüğətlər işlənməmişdir (Boase-Beier, 2004).

Azərbaycan və ingilis dillərində slenqlərin bir digər fərqi onların təsnifatı ilə əlaqədardır ki, ingilis dilində slenqlərin ümumi və xüsusi növləri olduğu halda Azərbaycan dilində belə təsnifata rast gəlinmir (Hacıyeva, Nacafova, Jafarov, 2014).

İngilis dilində slenqlərin yaranma yollarına görə beş növü qeyd olunmuşdur: canlı və yaradıcı slenqlər, flippant (qeyri-ciddi slenqlər), təqlid nəticəsində yaranan slenqlər, qısaltma nəticəsində yaradılan slenqlər, sözlərin kəsilməsi yolu ilə yaradılan slenqlər. Bu bölgü Azərbaycan dilində

aparılmasa da, dilə nəzər saldıqda bu bölgünün Azərbaycan dilindəki slenqlər üçün də ortaq xüsusiyyət olduğunu müəyyən edə bilərik.

Günümüzdə, istər ingilis dilində, istərsə də Azərbaycan dilində slenqlərin istifadəsi daha çox internet səhifələrində, kompüter oyunlarında, yəni texnologiyanın inkişafı ilə bağlı olan sahələrdə nəzərə çarpır. Bu onunla izah olunur ki, günümüzdə kompüterin imkanları elə həddə çatnışdır ki, insanlar ondan istifadə edərkən çox vaxt maşınla yoxsa adi insanla əlaqə qurduqlarını belə unudurlar. Çünki bu maşınlar bəzi hallarda insanlar üçün bir insandan daha yaxşı əməkdaşa çevrilir. Beləliklə, günümüzdə slenqlərin istifadə dairəsi daha çox internet və kompüter sahəsində yayılmışdır.

Ingilis dilində internet sahəsində yayılmış slenqlərin əksəriyyəti cəld yazışma ilə bağlı sözlərin qısaldılması nəticəsində yaranan akronimlərdir. Məsələn, b4 – Before (əvvəl), BBS – Be Back Soon (tez qayıt), bf – Boyfriend (oğlan dost, sevgili), BTW – By The Way (yeri gəlmişkən), DIKU – Do I Know You?(sizi tanıyıram?), F2F – Face To Face (üzbəüz), FAQ – Frequently Asked Question(tez soruşulmuş sual), HAGD – Have a Good Day(xoş istirahətlər), L8R – Later(sonra), LOL – Laughing Out Loud(səssiz gülmək), SPST – Same Place, Same Time(eyni yerdə, eyni vaxtda), SYL – See You Later(sonra görüşərik), TC – Take Care(özünə yaxşı bax), TTYL – Talk To You Later(sonra danışarıq) və s. bu siyahını çox uzatmaq olar.

Azərbaycan dilində internet sahəsində istifadə olunan slenqlərin əksəriyyəti alınma sözlərdən ibarət olub, bəziləri sözlərin qısaldılmış versiyasında olur. Məsələn, admin, link, update, virusyeyən, online və s. kimi sözlər bu sahəylə bağlı slenqlərə daxildir. Burada admin sözü administrator sözünün qısaldılmış versiyası olub, yalnız bu sahəni bilən adamlara bəlli olduğu üçün slenq kimi qəbul edilməsi düzgündür. Link, update, online alınma sözlər olub bu sahəylə maraqlananların başa düşdüyü ifadələrdir. Virusyeyən sözü isə antivirus sözünün əvəzedicisi kimi istifadə edilir. Cəld yazışma ilə bağlı günümüzdə gənclər tərəfindən istifadə olunan slenqlərə isə bunları misal göstərmək olar: cvb – cavab, uni – universitet, tşk – təşəkkür, tmm – tamam, slm – salam və s. bu qəbildəndir.

Ingilis dilində slenq sözlər mənşəcə cinayətkar, oğru, dilənçi kimi aşağı sosial təbəqə tərəfindən yaradılmışdır. Məsələn, əgər kimsə “blowing the peter” ifadəsini işlətsə, bu ifadənin mənası mühitin oğurluq üçün təhlükəsiz olduğunu bildirir. Biri biraz “happy dust”, yəni hərfi tərcüməsi ilə “xoşbəxt toz” almaq istədiyini söyləyirsə, deməli, bir az kokain almaq istəyir. “Jail arithmetic”, hərfi tərcüməi “həbs hesabı”slenqi pulu mənimsəyən və onu ört-basdır etməyə çalışan bir mühasib və ya bank işçisinə aiddir, yəni bu hesab onu həbsxanaya göndərə bilər. “Rappers” slenqi ancaq hüquq-mühafizə orqanlarına şikayət edən bir vətəndaş üçün istifadə olunan slenq idi.

Azərbaycan dilində də cinayətkar, oğru qrupların özünəməxsus ifadələri vardır. Bu ifadələrin bir çoxu Sovet hakimiyyəti dövründə yaranmışdır. Həmin dövrdə cəmiyyətin müxtəlif təbəqələrindən olan insanlar – həm kəndli, həm ziyalı, həm tacir, həm zabit və s. insanlar həbsxanalrı doldurduğundan müxtəlif ifadələr yaranmışdır. Məsələn, “yüksüz vaqonu itələmək” slenqi şaxtaçılar tərəfindən yaradılmışdı və boş, mənasız danışmaq mənasını verirdi. "Volına” – tapança sözü kazaklardan gəlmədir. "Jiqan” sözü "yandırmaq”, "yanmaq” deməkdir. "Jiqan” sözünü əvvəlcə ocaqçılara, hisə batmışlara deyirdilər. Daha sonra bu söz qəddar insanlara, fırıldaqçılara, dələduzlara deyildi. "Müftə” (xalyava) sözü Polşadan alınma sözdür. Müftə sözü burada çəkmənin boğazı mənasındadır. Fırıldaqçılar uzunboğazlı çəkmələr geyinir və bazarlarda gəzişirdilər. Fırıldaqçının biri tacirin fikrini yayndırır, o biri isə oğurladığı malı çəkmənin boğazından içəri atırdı. Bu söz müasir jarqonda "pulsuz”, "hədiyyə” mənasında işlənir.

Dildə yaranan slenqlərin inkişaf etdirilməsinə ən meyilli sahələrdən biri də hərbi xidmət sahəsidir deyə bilərik. Onların leksikonlarının gücü və mənalılığı sərt nizam-intizamın və bəzən müharibə təhlükəsinin yaratdığı daimi streslə, həmçinin gündəlik həyatlarının qapalı, təcrid olunmuş olması ilə sıx bağlıdır. Bu slenqlərə “a dead man” ölü adam mənasını verən “daisy pusher” slenqini, “no bloody good” (xoşbəxtlikdən qan yoxdur, hər şey yaxşıdır mənasında) ifadəsinin qısaltması olan “N.B.G.”, “(sadly out of luck” (bədbəxtlikdən) ifadəsinin qısaltması olan “SOOL” və s. nümunə ola bilər.

Ingilis dilində istifadə olunan slenqlərin bir hissəsi də tibb sahəsinə aiddir. Bu sahə ilə bağlı araşdırmalar aparan müəlliflərin əksəriyyəti, tibb işçilərinin leksikonundakı sözlərin böyük əksəriyyətinin qısaltmalardan və akronimlərdən ibarət olduğunu qeyd etmişlər. Bu tədqiqatçılardan biri olan P.C.Kolin tibb sahəsinin leksikonunu slenqlər və qısaltmalar olmaqla iki yerə ayırır. “Knee jerk” – dizlərdə ərpləşmə, qaxaclaşma ifadəsinin qısaltması “KJ”, “new born” – yeni doğulmuş

ifadəsinin əvəzinə “NB”, “sit out of bed” – yataqdan qalx, otur ifadəsinin əvəzinə “SOOB” və s. bu qəbildən olan slenqlərə nümunədir.

Azərbaycan dilində slenqlər, onların istifadəsi elə də çox işlənmiş mövzular sırasında deyil. Bu sahə son dövrlərdə dilçilərin və alimlərin diqqətini çəkməyə başladığından, hələ bütün sahələrin araşdırılması mümkün olmamışdır. Britaniya ingiliscəsində və Amerika ingiliscəsində slenqlərə aid olan söz və ifadələrlə bağlı lüğətlər hazırlansa da ölkəmizdə bu istiqamətdə hələ ki, görülmüş işlər yoxdur. Bu səbəbdəndir ki, dilimizdə tibb və hərbi xidmət sahələri və bir sıra başqa sahələrlə bağlı slenqlər hələ də işlənib üzə çıxarılmamışdır.

**NƏTİCƏ**

Aparılan çoxsaylı araşdırmaların sonunda belə nəticəyə gəlmək olar ki, Azərbaycan və ingilis dillərində mövcud olan slenqlərin bir-biri ilə oxşar cəhətləri fərqli cəhətlərindən üstünlük təşkil edir. Hər iki dildə də slenq anlayışı mövcuddur və onların izahları da bir-birinə uyğundur. Deməli, həm ingilis, həm də Azərbaycan dillərində slenq anlayışı eyni mənada işlədilir. Onların yaranma formaları da, demək olar ki, üstünlük təşkil edir. Cümlədə istifadə olunma xüsusiyyətləri və struktur tiplərində də oxşarlıq müşahidə olunmuşdur.

Hal-hazırda Azərbaycan dilində mövcud olan slenqlərin araşdırılmasına çox böyük ehtiyac vardır. Çünki hər hansı bir dildə danışmaq üçün onun ədəbi dili ilə yanaşı danışıq dilini də bilmək vacibdir ki, danışıq dilində də slenqlərin əhəmiyyəti inkaredilməzdir. Xüsusilədə günümüzdəki gənc və yeniyetmələr arasında onlar gündəlik danışıq dilinin ayrılmaz hissəsinə çevrilmişdir.

**ƏDƏBİYYAT SİYAHISI**

Hacıyeva, Ə. (2014). İngilis realiləri və onların Azərbaycan dilinə transformasiyası lüğəti. Bakı: Mütərcim, 90 s.

Musayev, O. (2003). İngiliscə-Azərbaycanca lüğət, Bakı: Qismət, 1696 s.

Abu, S. (2004). Translation of English idioms into Arabicin Babel//Translation of English idioms into Arabicin Babel, 50(2). – p.80.

Boase-Beier, J. (2004) Saying what someone else meant: style, relevance and translation//International Journal of Applied Linguistics, p.276-86

Hacıyeva, A., Nacafova, E., Jafarov, A. (2000). English lexicology. Bakı: Elm ve Tehsil, 228 p

# “DİALOJİ DİSKURSA PRAQMATİK YANAŞMA”

(İngilis dilinin materialları əsasında)

**Aytən Rəhimli**
Azərbaycan Dillər Universiteti
Doktorantura /German Dilləri
rehimliayten2@gmail.com
BAKI, AZƏRBAYCAN

**XÜLASƏ**

Bu tədqiqat elmi əsərlərdə dialoji diskursa praqmatik yanaşmanı araşdırır, onun innovasiyanın təşviqində roluna diqqət yetirir. Tədqiqat bu yanaşmanın əsas elementləri kimi diskursun məqsədini, iştirakçıların rollarını və münasibətlərini, diskursun kontekstini və nəzərdə tutulan nəticəni müəyyən edir. Tədqiqatda bu elementləri araşdırmaq üçün komponent analizi, nitq aktı təhlili və diskurs təhlili daxil olmaqla müxtəlif üsullardan istifadə olunur. Nəticələr göstərir ki, dialoji diskursa praqmatik yanaşma elmi tədqiqatlarda ünsiyyətin effektivliyini artıra, daha mənalı müzakirələrə və potensial

yeniliklərə səbəb ola bilər. Bu tədqiqat elmi tədqiqatlarda ünsiyyətin başa düşülməsinə töhfə verir, tədqiqatçılar və akademiklər üçün praktiki anlayışlar təmin edir. Gələcək tədqiqatlar bu yanaşmanın digər sahələrdə tətbiqini və təsirini araşdıra bilər.

**AÇAR SÖZLƏR:** Dialoji diskurs, nitq, praqmatizm,yanaşma, ünsiyyət

**ABSTRACT**

This study explores the pragmatic approach to dialogic discourse in scientific writing, focusing on its role in promoting innovation. The research identifies the purpose of the discourse, the roles and relationships of the participants, the context of the discourse, and the intended outcome as key elements of this approach. İt uses a variety of methods to examine these elements, including component analysis, speech act analysis, and discourse analysis. The results show that a pragmatic approach to dialogical discourse can increase the effectiveness of communication in scientific research, lead to more meaningful discussions and potential innovations. This study contributes to the understanding of communication in scientific research and provides practical insights for researchers and academics.The future research could explore the application and impact of this approach in other areas.

**KEYWORDS:** Dialogic discourse, speech, pragmatism, approach, communication

## GİRİŞ

Mövzunun aktuallığı: Dialoji diskurs dialoq şəklində təqdim olunan ünsiyyət formasıdır. Bu, danışan tərəfindən deyilən və dinləyici tərəfindən şərh edilən sözlərdə nəzərdə tutulan mənaya aiddir. Bu diskurs forması dialoqdan özünü, daxili dialoqlar, öz-özünə danışıq, anlaşılmazlıqlar, etibar və inamsızlıq, bilik istehsalı və cəmiyyətdəki qruplar arasındakı münasibətlər kimi ünsiyyətdən kənar hadisələri başa düşmək üçün metafor kimi istifadə edir. Bu, natiq və onların auditoriyası arasında dialoqu təşviq edən ünsiyyətə yanaşmadır. Müzakirə yolu ilə mənası araşdırılmadan və aydınlaşdırılmadan bütün məlumatı sadəcə başqalarına verən bir varlığa istinad edən monoloji diskursdan fərqli olaraq o, mənanın tədqiqində mühüm rol oynayır. Diskursu ünsiyyət olmadan düşünmək mümkün deyildir. Yəni ünsiyyət diskursun zəruri şərti hesab olunur. Buradan da belə nəticə çıxır ki, diskursla yanaşı, ünsiyyətin özünün təyin edilməsi və eyni zamanda şərhi lazımdır.

Hər bir ünsiyyətin növü və onu təqdim edən diskurs mövcuddur. Məsələyə bu tərəfdən yanaşdıqda diskursun müxtəlif növləri meydana çıxır. Biz isə məqaləmizdə dialoji diskurs və ona praqmatik yanaşma ilə bağlı müzakirələr aparacağıq.

Şəxsiyyət dili müxtəlif sosial təbəqələrə və cəmiyyətə xidmət edən ünsiyyət vasitəsi kimi təhlil edir. Dil kiməsə xidmət edərkən, öz funksiyasını yerinə yetirməkdə kommunikativ olub-olmamasından asılıdır. O, kommunikativ aktda iştirakçıların məqsədlərini əks etdirir. Ünsiyyət prosesində ünsiyyət strategiyası bir sıra anlayışlar və onların birləşməsi ilə sıx bağlıdır. Ünsiyyət aktında iştirak nitq aktlarının bir-biri ilə qarşılıqlı əlaqədə olduğu dialoq diskursunun təşkilini nəzərdə tutur. Bu prosesin bir hissəsi olaraq, müsahibə verənin çıxışında ifadə olunan ifadələr və mülahizələr digər iştirakçıya ötürülür.

Tədqiqatın məqsəd və vəzifələri: Hazırda dialoji diskurs haqqında o qədər də əhəmiyyətli araşdırmalar mövcud deyildir. Biz dialoji diskursun təşkilində ünsiyyət aktında iştirak edənlərin nitq aktlarının bir-birinə nüfuz etməsi barədə fikirlərə aydınlıq gətirəcəyik.

Metod və metodologiyası: Məqalənin yazılması zamanı diskursiv təhlil, empirik və analiz metodlarından istifadə edilmişdir.

Elmi yenilik: Ünsiyyətin praktiki aspektlərinə diqqət yetirməklə, o, nitqin məqsədyönlü olmasını, kontekstlə əlaqəli və nəticəyönümlü olmasını təmin edir. Bu, təkcə təsirli ünsiyyəti asanlaşdırmır, həm də innovasiya və tərəqqi üçün əlverişli mühiti gücləndirir.

Praktiki əhəmiyyəti: Praqmatik yanaşma həm də diskursun kontekstini nəzərə alır. Buraya daha geniş elmi sahə, xüsusi tədqiqat sahəsi, bilik və texnologiyanın mövcud vəziyyəti daxildir. Kontekst diskursun məzmununa və istiqamətinə təsir edir və onun dərk edilməsi daha mənalı və məhsuldar müzakirələrə imkan verir.

## TƏDQİQAT METODU

Elmi tədqiqatlar sahəsində dialoji diskurs əsas rol oynayır. Məhz bu interaktiv fikir və bilik mübadiləsi vasitəsilə yenilik yaranır. Dialoq nitqinə praqmatik yanaşma kontekst, iştirakçılar və müzakirənin nəzərdə tutulan nəticəsini vurğulamaqla ünsiyyətin praktiki aspektlərinə diqqət yetirir. Bu

yanaşmada ilk addım diskursun məqsədinin müəyyən edilməsidir. Elmi tədqiqat kontekstində məqsəd yeni fərziyyəni araşdırmaq, mövcud nəzəriyyəyə etiraz etmək və ya mürəkkəb problem üzərində əməkdaşlıq etmək ola bilər. Söhbətin məqsədi iştirakçıların qarşılıqlı əlaqəsini istiqamətləndirir və dialoqun trayektoriyasını formalaşdırır. Sonra iştirakçıların rolları və münasibətləri nəzərə alınır. Tədqiqat şəraitində bu rollar tədqiqatçılar, alimlər, akademiklər və ya tələbələr ola bilər. Bu rolları və onlar arasındakı dinamikanı başa düşmək təsirli diskurs üçün çox vacibdir.

Bu işin məqsədi nitqdə praqmatik markerlər kimi xidmət edən kiçik dil vahidləri qrupunun praqmatik potensialının seçilməsi və tədqiqi mexanizmini təklif etməkdir. Təhlil olunan materialda müasir ingilis və amerikalı yazıçıların romanlarından götürülmüş dialoq fraqmentlərinin seçilməsi təqdim olunur. Seçim meyarı dialoji diskurs fraqmentlərində təhlil edilən praqmatik markerlərin olması idi. Tədqiqat prosesində aşağıdakı üsullardan istifadə edilmişdir: komponent analizinin bəzi elementləri, nitq aktı təhlili, diskurs təhlili. Tədqiq olunan praqmatik markerlərin semantik və əlavə praqmatik komponentlərini aşkara çıxarmaq üçün komponent təhlilindən istifadə edilmişdir. Nitq aktı təhlilinin tətbiqi praqmatik markerlərin illokasiya potensialını araşdırmağa imkan verdi. Nəhayət, diskurs təhlili bizə kommunikativ strategiyaları və taktikaları tətbiq etməyə imkan verdi, burada sözügedən praqmatik markerlər nitq qarşılıqlılığının vacib komponentləri kimi istifadə olunur.

Söhbətin strukturu həmişə vahid olmur. Araşdırmalar göstərir ki, söhbətlər fərqli başlaya bilər. Bədii əsərlərdə bəzən başlanğıcı göstərmək olar.

Aşağıdakı mikromətnə nəzər salaq:

Mrs. Corner stated that

- "I mean it. I appreciate a man behaving like a man." His close friend suggested:

"But you wouldn't want Christopher, or rather Mr. Corner, to be that kind of person." Ms. Korner clarified her statement:

-"I don't mean that I like him acting like this often. However, I would like to know that he has the ability to be this kind of man." Then Mrs. Corner turned to the housekeepers and asked:

"Have you told your master that breakfast is ready?"

Xanım Korner bəyan etdi ki,

-"Mən bunu nəzərdə tuturam. Kişinin kişi kimi davranmasını yüksək qiymətləndirirəm". Onun yaxın dostu təklif etdi:

-“Ancaq siz Kristoferin, daha doğrusu, cənab Kornerin belə bir insan olmasını istəməzdiniz”. Xanım Korner ifadəsinə aydınlıq gətirdi:

-"Onun tez-tez belə davranmasının xoşuma gəldiyini nəzərdə tutmuram. Bununla belə, onun bu cür kişi olmaq qabiliyyətinə malik olduğunu bilmək istərdim". Sonra xanım Korner ev işçilərinə üz tutaraq soruşdu:

-“Səhər yeməyinin hazır olduğunu ustanıza xəbər vermisinizmi?”

Tədqiqatın obyekti dialoji diskursa praqmatik yanaşmadır. Tədqiqatın predmeti isə ingilis dilində qeydə alınan dialoqların leksik, semantik xüsusiyyətlərinin, dialoji nitq vahidlərinin, dialoji diskursun spesifik kommunikativ təşkiledicilərinin ümumiləşdirilərək sistemləşdirilməsidir.

M. Baxtin dialoji diskurs haqqında yazır: "Romanistik nəsr sahəsində dialoji diskurs diskurs və məna baxımından heterojenliyi əhatə edir. O, müxtəlif subyektiv şüurların və dünya haqqında düşüncə və danışıq tərzlərinin qarşılıqlı təsirinə əsaslanan reallığı yenidən yaradır. Bu mənada romanistik diskurs, mahiyyətcə subyektlərarası mühitdə fəaliyyət göstərən ideoloji ifadənin sadəcə bir forması olduğu ortaya çıxan mütləq və ya nüfuzlu (monoloji) dili sarsıdır."[8,s.55]

Praqmatik yanaşma

Praktik baxımdan Baxtinin dialoji diskurs konsepsiyası onu deməyə əsas verir ki, hər hansı bir söhbətdə, xüsusən də romanistik nəsr kontekstində çoxsaylı perspektivlər və səslər qarşılıqlı təsir göstərir. Bu qarşılıqlı əlaqə diskursu formalaşdırır, onu statik, monolit deyil, dinamik, inkişaf edən varlığa çevirir. O, hər hansı diskursda baxışların müxtəlifliyini dərk etməyin və etiraf etməyin vacibliyini vurğulayır, bununla da söhbəti zənginləşdirir və müzakirə olunan mövzunun daha əhatəli başa düşülməsinə kömək edir.

Aşağıdakı nümunəyə nəzər salaq:

“But if we have no hope and we know it,” said Winston, “then why don’t we kill ourselves?”

- Of two reasons. Firstly, because we can't. Secondly, because the body is still a field for experimentation.

- Like this?

“We’re still far from perfect,” O’Brien said. - We have not yet learned to control all emotions. We have methods to make you experience feelings such as pride, delight, fear of death, and so on. But we cannot make you feel like you want to live. Neither we, nor Washington, nor anyone else in the world can do this. Even if we destroy all sensations except hunger and pain, would you still choose to live forever? [3, s.278] "Ancaq ümidimiz yoxdursa və bunu biliriksə," Uinston dedi, "o zaman niyə özümüzü öldürməyək?"

- İki səbəbdən. Birincisi, ona görə ki, bacarmırıq. İkincisi, ona görə ki, bədən hələ də sınaq sahəsidir.

- Bunun kimi?

"Biz hələ də mükəmməl olmaqdan uzağıq" dedi O'Brien. - Biz hələ bütün emosiyaları idarə etməyi öyrənməmişik. Qürur, həzz, ölüm qorxusu və s. kimi hissləri yaşatmaq üçün üsullarımız var. Amma biz sizə yaşamaq istədiyinizi hiss etdirə bilmərik. Bunu nə biz, nə Vaşinqton, nə də dünyada heç kim edə bilməz. Aclıq və ağrıdan başqa bütün hissləri məhv etsək belə, siz yenə də əbədi yaşamağı seçərdinizmi? [ 3, s.278]

Bu nümunədə biz dialoji diskursa praqmatik yanaşmanı görə bilirik. O'Brayen Uinstona izah edir ki, ağrı və aclıqdan başqa bütün hisslərin götürüldüyü dünyada belə insan həyat üçün səy göstərməyə davam edəcək. Nümunəyə görə, romandakı avtoritetlər başa düşür ki, tam təslim olmaq üçün insanın təkcə fiziki vəziyyətinə deyil, həm də emosional vəziyyətinə nəzarət etmək lazımdır. Bu, insan təbiətini dərk etmək və manipulyasiya etmək üçün praqmatik yanaşma nümayiş etdirir.

**NƏTİCƏ**

Dialoji diskursa praqmatik yanaşmaya əsaslanan tədqiqat həyatın müxtəlif sahələrində ünsiyyət və qarşılıqlı əlaqənin dərk edilməsində mərkəzi yer tutur. Bu yanaşma ünsiyyətin kontekstini, məqsədini və nəticələrini nəzərə alır, həmçinin ünsiyyətin nəticələrinin praktiki tətbiqinə diqqət yetirir.

Tədqiqat müxtəlif fikirlərin nəzərə alınması, effektiv ünsiyyət strategiyaları və kontekstin mesajların qəbuluna təsirinin dərk edilməsi də daxil olmaqla dialoji diskursun əsas aspektlərini müəyyən edir. Praqmatik yanaşma yalnız ünsiyyət prosesinin nəzəri başa düşülməsinə deyil, son nəticəyə nail olmağa yönəldilmişdir.

Tədqiqatın nəticələrindən biri də biznes, siyasət, təhsil və şəxsiyyətlərarası münasibətlər kimi müxtəlif sahələrdə ünsiyyət bacarıqlarının təkmilləşdirilməsi üçün praktiki tövsiyələrin hazırlanmasıdır. Bu tövsiyələr xüsusi kontekstlərdə müxtəlif ünsiyyət strategiyalarının təsirliliyinin təhlilinə əsaslanır və konkret ünsiyyət məqsədlərinə nail olmağa yönəlib.

Bundan əlavə, tədqiqata ünsiyyətin təsirli olmasını qiymətləndirmək və arzu olunan nəticələrə nail olmaq üçün praktik vasiitələrə dialoqların keyfiyyətinin təhlili, qarşılıqlı anlaşma dərəcəsinin qiymətləndirilməsi və ünsiyyət iştirakçılarının rəyləri daxildir.

Nəticə olaraq dialoji diskursa praqmatik yanaşma iştirakçıların məqsədlərini, iştirak etdiyi konteksti və ehtiyaclarını nəzərə almaqla daha təsirli və səmərəli ünsiyyətə kömək edir. Tədqiqatın yekun nəticəsi kommunikativ səriştəni artırmaq və arzu olunan ünsiyyət məqsədlərinə nail olmaq üçün xüsusi tövsiyələri vurğulayır.

**ƏDƏBİYYAT SIYAHISI**

Bakhtin, Mikhail; Holquist, Michael; Emerson, Caryl (1981). The Dialogic Imagination: Four Essays by M. M. Bakhtin.68

Fareed Hameed Al-hindawi and Mariam Saffah. (2017). “Pragmatics and Discourse Analysis”, 134-148.

George Orwell. (1949) novel is “Nineteen Eighty-Four” (1984), 278-279

Istvan Kecskes. (2016). “A Dialogic Approach to Pragmatics”, 48-56.

Judith Butler, (1990). "Pragmatic Aspects of Discourse", 135-150

Karasik, V.I. & Gillespie, D. (2014). Discourse personality types. In The XXV annual international academic conference, language and culture, 20-22 October 2014, 23-29.

Leiman, M. (2012). Dialogical sequence analysis in studying psychotherapeutic discourse. International Journal for Dialogical Science, 6(1), 123-147.

Mikhail Bakhtin. (1979). "The Dialogical Approach in Modern Linguistics", 55-70

# ANALYSIS OF THE BLOODY CHAMBER BY ANGELA CARTER

**Aliyeva Mehriban**
Azerbaijan University of Languages
Faculty of Foreign Literature
mexr5@yahoo.com
BAKU, AZERBAIJAN

**ABSTRACT**

This scholarly article provides a detailed analysis of Angela Carter's short story "The Bloody Chamber", a pivotal piece of feminist literature. The paper delves into Carter's subversion of traditional gender expectations and her celebration of female agency through a diverse range of characters. The protagonist, who remains unnamed, serves as a key point of focus as she transitions from innocence to empowerment, representing Carter's exploration of feminine independence. Additionally, the protagonist's mother, an unwavering symbol of defiance against patriarchal oppression, is also closely examined. The article explores the themes of liberation and empowerment present in the narrative, highlighting their relevance to contemporary audiences. Ultimately, the article concludes by emphasizing the continued significance of Carter's work in challenging gender norms and celebrating the resilience of the female spirit. This scholarly exploration contributes to ongoing discussions surrounding gender, power, and identity, showcasing the transformative potential of literature as a tool for social change.

**KEYWORDS:** Feminist Literature, Female Agency, Gothic Feminism, Gendered Narratives, Liberation Themes

## INTRODUCTION

Oxuyucuya tədqiqat işinin strukturu (fəsilləri) göstərilir. Angela Carter's "The Bloody Chamber" stands as a seminal work in feminist literature, offering a rich tapestry of female characters who navigate the complexities of desire, power, and liberation within the confines of a Gothic narrative. In this scholarly exploration, we delve into Carter's masterful subversion of traditional gender expectations, examining how she challenges stereotypes and celebrates female agency through the protagonist, her Mother, and other dynamic figures. Through this analysis, we aim to uncover the nuanced portrayal of feminine power and resilience, shedding light on the enduring relevance of these themes in contemporary discourse.

Central to our analysis is the character of the unnamed protagonist, whose journey from innocence to empowerment serves as a focal point for Carter's exploration of feminine independence. Through her defiance of patriarchal control and reclaiming autonomy, the heroine emerges as a symbol of feminine strength and resilience, challenging readers to reconsider conventional notions of womanhood (Aggarwal, 2020, p. 4). Similarly, the heroine's Mother embodies a formidable figure of defiance against patriarchal oppression, drawing parallels to heroes found in Bluebeard tales and underscoring the transformative potential of maternal love and solidarity (Asnes, Miller, 2007).

As we delve deeper into Carter's narrative, we uncover themes of liberation and empowerment that resonate with contemporary audiences. The act of unlocking the forbidden chamber symbolizes more than mere curiosity; it represents a bold assertion of agency and autonomy in the face of patriarchal dominance (Aggarwal, 2020, p. 4). Moreover, Carter emphasizes the importance of female solidarity and mutual support, highlighting the transformative power of women uniting against oppression.

Through our scholarly exploration of "The Bloody Chamber," we seek to illuminate the enduring relevance of Carter's work in challenging gender norms and celebrating the resilience of the female spirit. Reviewing Carter's text through a critical lens provokes thought and discussion on the complexities of feminine power and liberation in a patriarchal world, inviting readers to reconsider their perceptions of womanhood in society.

Our scholarly inquiry into Angela Carter's "The Bloody Chamber" serves as a testament to the enduring significance of feminist literature in challenging societal norms and empowering women to

reclaim their agency and resilience in a patriarchal world. Through our analysis, we intend to contribute to the ongoing conversations surrounding gender, power, and identity, shedding light on the transformative potential of literature as a tool for social change

**RESEARCH METHOD**

Qarşıya qoyulmuş məsələni həll etmək üçün istifadə edilmiş metod və materiallar göstərilir. "The Bloody Chamber" by Angela Carter recounts the story of a young female protagonist who marries a mysterious and wealthy Marquis. Raised by her adventurous and romantic Mother after her father's death, the heroine enters the marriage not for love but for financial security and social status. Soon after their wedding, the Marquis leaves on urgent business, leaving his new bride alone in his ancestral castle. He gives her all the keys to the castle but forbids her from opening one room. Curiosity gets the better of her, and she unlocks the forbidden chamber, discovering the gruesome remains of the Marquis's previous wives.

Terrified by her discovery, she seeks help from a blind piano tuner who confirms her suspicions. When the Marquis returns and discovers her disobedience, he marks her with a blood-soaked key and prepares to execute her. However, her Mother arrives just in time and shoots the Marquis dead, saving her daughter.

Inheriting the Marquis's wealth, the protagonist rejects materialism and marries the piano tuner for love. She uses her inheritance to establish a music school, choosing a life of independence and fulfilment. Through her journey, she confronts themes of desire, power dynamics, and the resilience of the female spirit, ultimately finding liberation and empowerment.

Character Analysis:

At the core of Angela Carter's "The Bloody Chamber" lies a cast of female characters who transcend mere literary roles and embody profound themes of empowerment, resilience, and liberation.

The deliberate choice to leave the characters nameless is a powerful narrative device that reinforces the notion of these characters as archetypes rather than individuals. By remaining nameless, the protagonist and her counterparts transcend the boundaries of individual identity, allowing readers to project themselves onto their experiences. This intentional anonymity imbues the characters with a universality that invites readers to empathize with their struggles and triumphs on a more profound level. In essence, they become embodiments of the everywoman, representing women's collective experiences, desires, and aspirations across diverse backgrounds and contexts. Through this universality, Angela Carter underscores the broader societal implications of gender dynamics and female empowerment, encouraging her readers to ponder their relationships with power, agency, and liberation. Thus, the namelessness of the characters not only enhances the story's thematic resonance but also underscores its enduring relevance and resonance in contemporary discourse on gender and identity.

The Heroine:

The protagonist in Angela Carter's "The Bloody Chamber" emerges as a complex and multifaceted character, embodying themes of feminine agency, transformation, and empowerment (Aggarwal, 2020, p. 1). Initially depicted as innocent and sheltered, she undergoes a profound metamorphosis as she navigates the dark realities of her marriage to the Marquis. Carter intricately crafts her character arc, illustrating her evolution from naivety to autonomy with remarkable depth and nuance: "I had, in some way, ceased to be her child in becoming his wife." (Carter, 2015, p. 1)

The protagonist's journey of self-discovery begins with a moment of revelation as she catches a glimpse of herself through the eyes of the Marquis. The quote, "When I saw him look at me with lust..." (Carter, 2015, p. 5), encapsulates her sudden awareness of her own allure and the potential for corruption that accompanies it. "I saw him watching me in the gilded mirrors […] I'd never seen, or else had never acknowledged, that regard of his before, the sheer carnal avarice of it" (Carter, 2015, p. 5). This moment catalyzes her awakening, setting the stage for her exploration of desire, power, and identity (Makinen, 1992, p. 10).

Central to the protagonist's character is her complex relationship with her own sexuality and agency. Described as a "familiar treat" (Carter, 2015, p. 7) as her husband undresses and analyses her body and virtue, something he has done before their marriage, she grapples with the confines of her innocence and the societal expectations placed upon her (Aggarwal, 2020, p. 2). Vividly capturing the

sense of confinement and vulnerability many young women like her feel, the passage "A dozen husbands impaled a dozen brides while the mewing gulls swung on invisible trapezes in the empty air outside." (Carter, 2015, p. 9) highlights the control women have over their sexuality and the power dynamics inherent in the portrayal of virginity (Aggarwal, 2020, p. 3).

As the narrative unfolds, the protagonist's journey takes her into the heart of darkness, where she confronts the Marquis's twisted desires and the violence lurking beneath the surface of their relationship. The scene where he forces her to wear the ruby necklace and takes her virginity is a harrowing depiction of her subjugation and objectification (Makinen, 1992, p. 13). Yet, even in the face of such brutality, she maintains a sense of agency and defiance, ultimately triumphing over the Marquis and reclaiming her autonomy.

As the story unfolds, the unnamed protagonist's initial indifference towards the fates of the Marquis's previous wives gradually becomes a profound resonance with their experiences. Initially, she regards the stories of the wives with a degree of detachment, dismissing them as relics of the Marquis's past, as she seemed to prioritize the power and sexuality that she believed would come along with her marriage (Aggarwal, 2020, p. 2). However, as she delves deeper into the secrets of the forbidden chamber and confronts the grim reality of their tragic ends, she begins to empathize with their plight. The realization that she shares a fate similar to that of the previous wives awakens within her a sense of solidarity and kinship, prompting her to defy the Marquis's control and assert her agency. This evolution in her perception underscores the transformative journey she undergoes, from a passive observer to an active participant in her liberation, as she embraces the legacy of the women who came before her (Agir, 2023, pp. 240-241).

Her discovery of the actual fates of the previous mistresses of the mansion marks another turning point in her character development and personal growth, highlighting the protagonist's transformative journey from a sheltered and naive young woman to a courageous and self-aware individual. Initially depicted as a "spoiled child" (Carter, 2015, p. 16), unaware of her inner strength, the heroine undergoes a profound shift in perspective as she confronts the horrors of the forbidden chamber. The mention of her Mother's defiant spirit catalyzes her bravery, driving her to venture into the "dreadful place" (Carter, 2015, p. 16) despite her fear. Through her fumbling for matches and the dim light they provide, the protagonist gains a chilling glimpse into the darkness lurking within the chamber, symbolizing her awakening to the world's harsh realities. This moment marks a pivotal turning point in her growth and self-awareness as she bravely confronts the truth and asserts her agency in the face of danger (Luppe, 2022, p. 8).

The protagonist's transformation is a personal victory and a more extensive commentary on patriarchy's oppressive forces and the human spirit's resilience (Makinen, 1992, p. 5). Through her journey, Carter explores themes of liberation and empowerment, inviting readers to reflect on the complexities of gender dynamics and the struggle for self-determination.

In the final passages of "The Bloody Chamber," the heroine's narrative arc culminates in a poignant testament to resilience and self-awareness. Despite inheriting immense wealth, she chooses to give most of it away to charity, opting for a quiet life with her loved ones. The castle, once a site of terror and oppression, is transformed into a school for blind students, symbolizing the protagonist's commitment to healing and renewal. Her decision to retain only enough funds to start a music school reflects her desire for simplicity and fulfilment rather than material wealth. Through her actions, the heroine rejects the trappings of her past and embraces a life of authenticity and purpose. The lingering presence of the bloody chamber, sealed and buried, serves as a reminder of her harrowing past but also as a testament to her resilience in overcoming it. Despite the gossip and whispers surrounding her, the heroine remains steadfast in her truth, finding solace in the love and support of her family. The red mark on her forehead, a permanent reminder of her ordeal, becomes a symbol not of shame but of strength, a testament to her victory over misogyny and oppression. Ultimately, the heroine emerges as a beacon of hope and inspiration, her journey serving as a powerful reminder of the transformative power of self-discovery and empowerment in the face of adversity (Agir, 2023, p. 241).

The Mother:

The heroine's Mother emerges as a striking figure of defiance against patriarchal oppression, embodying traits reminiscent of heroes found in Bluebeard tales. Unlike the passive heroines typically

associated with such narratives, the Mother exudes agency, strength, and a fierce determination to protect her daughter (Wynn, 2019, p. 79).

Described as adventurous and fiercely independent, the Mother subverts traditional maternal roles by embracing her autonomy and defying societal expectations (Wynn, 2019, p. 78). Carter imbues her with a sense of agency and authority, positioning her not merely as a caregiver but as a formidable force to be reckoned with. This is evidenced in the passage where the protagonist reflects on her Mother's formidable exploits, remarking, "My eagle-featured, indomitable mother; what other student at the Conservatoire could boast that her mother had outfaced a junkful of Chinese pirates, nursed a village through a visitation of the plague, shot a man-eating tiger with her hand and all before she was as old as I?" (Carter, 2015, p. 25). Through this portrayal, Carter highlights the Mother's extraordinary resilience and courage and challenges the limited roles typically ascribed to women in literature. By presenting her as a multifaceted character capable of confronting danger and adversity head-on, Carter emphasizes the importance of reimagining maternal figures as agents of empowerment and defiance within the narrative landscape (Wynn, 2019, p. 83).

Moreover, the Mother's unwavering devotion to her daughter is a powerful indication of the lasting strength of maternal love and solidarity. Her actions throughout the narrative are driven by a fierce determination to protect her daughter from harm and to challenge the oppressive forces that seek to control her. In this sense, she embodies the archetype of the avenging Mother, willing to defy societal norms and confront danger head-on to safeguard her child (Makinen, 1992, p. 13).

Drawing parallels to the heroes of Bluebeard tales, particularly in her confrontations with the Marquis, the Mother's actions exemplify a resolute defiance against patriarchal oppression. The character makes references to her Mother's courage throughout the story as inspiration, stating that her "mother's spirit" drove her to a "dreadful place […] in a cold ecstasy to know the very worst" (Carter, 2015, p. 16). Underscoring the Mother's unwavering resolve and willingness to confront the Marquis in defence of her daughter, like the heroes of Bluebeard tales who ultimately triumph over the villainous Bluebeard, the Mother's actions serve as a powerful assertion of agency and resistance against patriarchal oppression (Wynn, 2019, p. 96).

Through the character of the Mother, Carter challenges traditional gender roles and celebrates the power of maternal love and solidarity in the face of adversity. By positioning her as a beacon of strength and resilience, Carter underscores the transformative potential of women who refuse the limitations imposed by societal norms and instead assert their right to determine their destinies. In this way, the Mother serves as a powerful symbol of defiance against patriarchal oppression, embodying the enduring spirit of female empowerment and resistance (Luppe, 2022, p. 2).

The Housekeeper:

The housekeeper emerges as a multifaceted figure within the narrative, embodying loyalty and ambiguity. Despite her outwardly obedient demeanour, she harbours suspicion and unease, as depicted when the protagonist expresses distrust towards her and other household staff (Agir, 2023, p. 250).

The quote, "I did not trust that leather-clad chauffeur, nor the well-behaved housekeeper" (Carter, 2015, p. 17) underscores the protagonist's apprehension, suggesting that the housekeeper's loyalty may be contingent upon her allegiance to the Marquis. However, amidst her perceived subservience, the housekeeper demonstrates resourcefulness and resilience, as seen in her efforts to maintain order and provide for the household's needs, even under the Marquis's oppressive rule (Dantas, 2021, p. 27).

Despite any personal misgivings, her stoic acceptance of her role as a caretaker of the estate reflects the quiet strength inherent in marginalized women like herself. Additionally, her interactions with the protagonist reveal a subtle power dynamic at play, with the housekeeper exercising control over domestic affairs while subtly asserting her authority over the inexperienced chatelaine. Despite her disapproval of the protagonist's behaviour, as evidenced by her disdainful reaction to the protagonist's disregard for formalities, the housekeeper maintains a sense of propriety and duty, highlighting her adherence to societal norms and traditions. Overall, the housekeeper's character adds depth to the narrative, serving as a nuanced representation of the complexities of power and loyalty within the Marquis's household (Agir, 2023, p. 250).

## CONCLUSION

In conclusion, Angela Carter's "The Bloody Chamber" emerges as a masterful deconstruction of traditional gender norms, weaving a narrative tapestry that challenges stereotypes and celebrates women's agency. Through the heroine's and her Mother's compelling characters, Carter highlights the significance of women forging their own paths and resisting societal confines. The pivotal act of unlocking the forbidden chamber transcends curiosity, symbolizing a profound assertion of agency and autonomy against patriarchal dominance.

Moreover, Carter underscores the transformative power of female solidarity and mutual support, emphasizing the importance of women uniting to combat oppression. In doing so, "The Bloody Chamber" becomes more than a Gothic tale; it evolves into a poignant exploration of feminine power and liberation, resonating deeply with contemporary audiences. By inviting readers to reflect on the enduring relevance of these themes in today's society, Carter's narrative transcends the confines of time and space, making a lasting impact on the world of literature.

In essence, the story serves as a testament to the resilience and strength inherent within women, offering a compelling portrayal of their capacity to defy expectations, challenge norms, and assert their agency in a patriarchal world. Through the heroine, her Mother, and a cast of other dynamic figures, Carter presents a vivid tableau of female empowerment, inspiring readers to reconsider conventional notions of womanhood and embrace the transformative potential of solidarity and self-determination.

## BIBLOIGRAPHY

Agir, B. (2023). Gender, Genre and the Female Gothic: Resisting Patriarchal Norms in Angela Carter's "The Bloody Chamber" and Charlotte Perkins Gilman's "The Yellow Wallpaper". The Journal of International Scientific Researches. 8(2)

Aggarwal, I. (2020). Specularizing myth: (de)constructing feminine identity in "The Bloody Chamber" and "Wolf-Alice" by Angela Carter. The Yale Undergraduate Research Journal, 1(1), 27.

Asnes, T. Miller, W.C. ed. (2007). "The Bloody Chamber" Summary and Analysis. GradeSaver

Carter, A. (2015). The Bloody Chamber and Other Stories. Penguin Books.

Dantas, I. S. (2021). The Inner Wild Woman Freed: Angela Carter's The Bloody Chamber And The Overcoming Of Sexist Traits In Classic Fairy Tales. Universidade Federal Da Paraíba Centro De Ciências Humanas

Luppe, H. (2022). As Red as Blood: Women's Temporality and Pain in Angela Carter's "The Bloody Chamber". Vol. 16 (2022): 16th I@Q Conference Proceedings. https://doi.org/10.24908/iqurcp15484

Mäkinen, M. (1992). Angela Carter's "The Bloody Chamber" and the Decolonization of Feminine Sexuality. Feminist Review, 42, 2-15. https://www.jstor.org/stable/1395125

Wynn, A.P. (2019). Motherhood, Sexuality, and the (Fe)Male Gaze in Angela Carter's The Bloody Chamber. Eger Journal of English Studies XIX.

# QƏDİM İNGİLİS DİLİNDƏ İSİM

**Qocayeva Mətanət**
Filologiya üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Dillər Universiteti, Təhsil 1 fakültəsi
İngilis dilinin qrammatikası kafedrası
qocayeva-m@bk.ru
BAKI, AZƏRBAYCAN

**XÜLASƏ**

İngilis dilinin qrammatik sistemi təkamül dövrü ərzində digər german dilləri ilə müqayisədə dərin dəyişikliklərə məruz qalması ilə hər zaman dünya dilçiliyində diaxronik aspektdən tədqiq olunmaqla bir çox mübahisəli məsələlərə yol açmışdır. İngilis dilinin sintetik dildən analitik dilə doğru təkamül dövrü keçməsi məsələsilə bağlı bir çox tədqiqat işlərinin, əsərlərin yazılmasına baxmayaraq, bu təkamül meylinin haradan və nədən qaynaqlandığı dilçilikdə tam elmi həllini tapmamış məsələlərdən hesab olunur.Təqdim olunan məqalədə V-XI əsrləri əhatə edən qədim dövr ingilis dilində ismin qrammatik xüsusiyyətləri orta və müasir dövr ingilis dili ilə müqayisəli təhlil olunduğuna görə seçilmiş mövzunu aktual hesab etmək olar. Məqalənin Giriş hissəsində mövzu, onun aktuallığı, işlənmə dərəcəsi, metodoloji əsası, alınan nəticələr haqqında yığcam məlumat verilir. İşin əsas hissəsində qədim, orta və müasir dövr ingilis dilində ismin aparıcı nitq hissəsi kimi əsas qrammatik xüsusiyyətləri müqayisə olunaraq konkret nümunələrlə təhlil olunur. Araşdırmalardan əldə olunmuş yekun fikirlərə münasibət bildirilməklə məqalənin Nəticə hissəsində qeyd olunur.

**AÇAR SÖZLƏR:** German dilləri, sintetik dil, analitik dil

**SUMMARY**

The grammatical system of the English language has undergone deep changes compared to other Germanic languages during the evolutionary period, and has always been studied from a diachronic aspect in world linguistics, giving rise to many controversial issues. Despite the fact that many researches and works have been written on the issue of the evolution of the English language from a synthetic language to an analytical language, where and why this evolutionary trend originates is considered one of the issues that have not been fully scientifically resolved in linguistics. Since the grammatical features of the noun are compared with the Middle and Modern English language, the selected topic can be considered relevant. In the introductory part of the article, brief information is provided about the topic, its relevance, degree of elaboration, methodological basis, and the obtained results. In the main part of the work, the main grammatical features of the noun as the leading part of speech in Old, Middle and Modern English are compared and analyzed with concrete examples. The final ideas obtained from the research are mentioned in the Conclusion part of the article

**KEYWORDS:** Germanic languages, synthetic language, analytical language

**GİRİŞ:** İsim əsas nitq hissəsi olaraq dilin morfoloji sistemində aparıcı mövqeyə malikdir. Biz isimlərlə ətraf aləmin cisim və hadisələrini adlandıraraq onlara işarə edirik. Cümlədaxili sintaqmatik və paradiqmatik əlaqələrin yaranmasında feil qədər isim də az rol oynamır. İsim və onun təyinediciləri qismində çıxış edən nitq hissələri – artikillər, əvəzliklər, sifətlər, saylar bilavasitə cümlənin mübtədası vəzifəsində çıxış edən nominal komponentlə idarə olunurlar. Bəzi dillərdə ismin malik olduğu qrammatik kateqoriyalar şəkilçilərlə ifadə olunmaqla ismin cinsindən, kəmiyyətindən, halından asılı olaraq qrammatik uzlaşmada özünü göstərir. Deyilən bu xüsusiyyətlər qədim ingilis dili üçün səciyyəvi olmuşdur. Çünki qədim ingilis dilində isim hal, kəmiyyət və cins kateqoriyalarına sahib, zəngin şəkilçi morfemləri ilə dilin qrammatik sistemində mühüm yer tutmuşdur. Xüsusilə, müasir German dilləri, məsələn, alman dili kimi, qədim ingilis dili qrammatik cins kateqoriyasına malik olmaqla mürəkkəb daxili quruluşa sahib dil olmuşdur. Sözügedən məqalədə qədim ingilis dilində ismə xas olan qrammatik xüsusiyyətlər haqqında məlumat verilməklə o, orta və müasir dövr ingilis dili ilə müqayisə olunur, tutuşdurmalar edilməklə isim sistemində baş verən dəyişikliklər nəzərə çatdırılır. Bu baxımdan məqalədə aktual bir mövzuya toxunulmuşdur.

Sözügedən məqalədə göstərilir ki, sintetik dil kimi şəkilçi morfemlərlə zəngin olan qədim ingilis dilində isim çoxkateqoriyalı, morfoloji əlamətlərlə zəngin nitq hissəsi olmasına baxmayaraq, dilin təkamülünün sonrakı dövrlərində ingilis dilinin şəkilçi sistemi iflas etdiyinə görə isimin hallarının sayı azalmış, qrammatik cins dili tərk etmiş, ümumiyyətlə, dilin qrammatik sistemi analitizmə meyl edərək xeyli sadələşmişdir. Məqalədə qeyd olunan məsələlərə diaxronik aspektdən yanaşılmaqla aydınlıq gətirilməsinə səy göstərilmiş, konkret nümunələrə müraciət olunmaqla təhlillər, müqayisələr aparılmışdır. Araşdırmalardan alınmış yekun fikirlər məqalənin sonunda göstərilmişdir.

Məqalənin mövzusunu seçməkdə əsas məqsədimiz ingilis dilində qədim dövrdən müasir dövrə qədər keçən müddətdə isimlərdə baş verən dəyişiklikləri müqayisə etməklə onu elmi-praktik cəhətdən şərh etməkdir. Məqsədə nail olmaq üçün məqalədə əsas bu məsələlər diqqətə alınmışdır:

Təhlil olunan məsələyə diaxronik aspektdən yanaşmaqla onun elmi şərhini vermək;

Qədim dövr ingilis dilində ismə xas xüsusiyyətləri orta və müasir dövrlə qarşılıqlı müqayisə edərək təhlil etmək;

İsim sistemində baş verən yenilikləri ingilis dilinin müxtəlif dövrlərinə aid yazı nümunələri əsasında əyani olaraq izah etmək;

Əldə olunmuş yekun fikirləri cəmləşdirərək məqalənin nəticə hissəsində qeyd etmək.

**TƏDQİQAT METODU**

Məqalədə araşdırılan mövzunun ardıcıl tədqiq olunması üçün tarixi-müqayisəli, qarşılaşdırma-tutuşdurma metodlarından istifadə olunmuşdur.

Qədim dövr ingilis dilində isim. Qədim yunan filosofları dillərin inkişafı və dəyişməsi ilə bağlı belə bir müddəa irəli sürmüşdülər ki, "Dil daim dəyişən və yenilənən bir sistemdir" [ Hogg, 2005]. Cəmiyyət, insan təfəkkürü inkişaf edib yeni ixtiralara, kəşflərə imza atdıqca, şübhəsiz, bunlar dilin inkişafına da təkan verir, onu zənginləşdirir. Çünki həyatımızda baş verən hər cür hadisə, yenilik dil vasitəsi ilə ifadə olunur, cəmiyyətdə ictimailəşir. Bu cəhətdən, dilin inkişafı, zənginləşməsi təbii, qanunauyğun, labüd və qarşısıalınmaz prosesdir. Eyni zamanda, dil insan fikrini ifadə edən yeganə "verbal sistemdir"[ Traugott, 1972]. Dil zamanın tələbinə uyğun dəyişmədən təkamül mərhələsi keçirə, həmin dövrün nəbzini tutub dövrə uyğun ünsiyyətə xidmət edə bilməz və beləliklə, dil statusunu itirməklə tarixin səhnəsini tərk etmiş olar.

Dilçilikdə inqilabi hadisə olaraq dəyərləndirilən tarixi-müqayisəli metodun dillərin geneoloji cəhətdən öyrənilməsinə tətbiq olunması " bir çox üstüörtülü məqamlara aydınlıq gətirdi" [Jespersen, 1954]. Belə ki, dillərin diaxronik aspektdən tədqiq olunması göstərdi ki, bu gün danışılan və eyni dil ailəsinə aid olan dillərin mənşəyində bir Ulu Ana dil ( Proto Language) dayanır və bu dillər həmin ana dildən törəmişlər. Bu ana dil Ulu German dili olmuşdur. Hind-Avropa dilləri ailəsinin Qərbi german yarımqrupuna aid olan ingilis dili də tarixən bu dildən yaranmışdır.

Eramızın V əsrinin ortalarında Anqlo, Sakson və Yut tayfalarının Britaniya adalarını istila etməsi ilə ingilis dilinin əsası qoyulmuşdur. Məhz alimlər ingilis dilinin və ingilis xalqının formalaşmasını bu tarixdən, 449-cu ildən başladığını qeyd edirlər. German dilləri qrupuna daxil olan digər dillər kimi ingilis dilinə də Ulu dildən zəngin şəkilçi morfemlər miras qalmışdır. Məhz ingilis dilinin zəngin morfoloji quruluşuna istinad edərək H.Suit onun təkamül dövrünü üç əsas mərhələyə bölmüşdür: 1) Şəkilçilərlə zəngin olan Qədim dövr ( Old English – the full inflectional period); 2) Şəkilçilərin mövqeyinin zəiflədiyi orta dövr ( Middle English – the period of levelled inflections); 3) Şəkilçisiz müasir dövr ingilis dili ( Modern English – the period of loss inflections) [ Sweet, 1883 ].

H.Suitin 1873-cü ildə irəli sürdüyü bu bölgü ingilis dilinin dövrlər üzrə dəyişən şəkilçi sistemi əsasında aparıldığına görə bu, morfoloji dövrləşmə ( morphological periodization) adlandırılır. Qeyd edək ki, Qədim, Orta, Müasir dövr terminləri, habelə, köhnə ingilis dilinin Anqlo-Sakson ingilis dili adlandırılması da ilk dəfə H.Suit tərəfindən irəli sürülmüş və birmənalı olaraq alimlər tərəfindən qəbul olunmuşdur. Hal-hazırda tədqiqatlarda bu terminlərdən istifadə olunur.

Qədim ingilis dili eramızın V-XI əsrlərini, daha dəqiq 449-1066-cı illərini əhatə edir. Bu dövr ingilis dili şəkilçilərlə zəngin sintetik dil olmuşdur. İsim və feil mürəkkəb quruluşa, çoxsaylı qrammatik kateqoriyalara və həmin kateqoriyaları dildə ifadə edən şəkilçi morfemlərə malik olmuşdur. İsim malik olduğu zəngin şəkilçi sistemi, qrammatik cins kateqoriyası, cümlə üzvləri arasındakı qrammatik uzlaşmanın morfoloji əlamətlərlə ifadə olunması ilə daha çox müasir alman, rus, fransız, yunan dillərinə bənzəmişdir

Qədim ingilis dilində ( qeyd edək ki, ingilis dilinin tarixi eramızın V əsrinin ortalarından başladığına görə, bəzən o qədim deyil, köhnə ingilis dili də adlandırılır) isim hal, şəxs, kəmiyyət və cins kateqoriyalarına malik mürəkkəb bir sistem təşkil etmişdir. İsim və onu təyin edən nitq hissələri – artikil, sifət, say, əvəzliklər, feil isimlə bütün qrammatik kateqoriyalara görə üzlaşmışlar. "Qədim ingilis dilində ismə xas xüsusiyyətlər cümlə daxilində qrammatik uzlaşma zamanı özünü göstərmişdir"[ Hockett, 1958]. Qədim ingilis dilində ismin beş halı ( bəzi mənbələrdə səkkiz halı), iki kəmiyyəti – tək və cəm; üç cins bölgüsü – kişi, qadın və orta cins olmuşdur. İsimlər qüvvətli və zəif hallanmışlar. İsimlərin qədim ingilis dilində malik olduqları cins bölgüsü həm təbii-bioloji, həm də isimlərin qrammatik xüsusiyyətlərinə görə olmuşdur. Başqa sözlə, qrammatik cinsin işlədilməsi ingilis dilinin mürəkkəb daxili sistemə malik olmasını şərtləndirmişdir. Məlumdur ki, qrammatik cins bölgüsündə ismin canlı və ya cansız olması, hansı təbii cinsi bildirməsi önəm daşımır, bu bölgü ismin morfoloji xüsusiyyətlərindən asılı olur. Qrammatik cinsin bioloji cinslə əlaqəsi yoxdur, ismin bioloji cinsi qrammatik cinslə ifadə oluna da bilər, olunmaya da. "Qədim ingilis dilində sēo bōc – book –kitab sözü qadın cinsinə; sē wifmann – woman – qadın sözü kişi cinsinə, þæt mægden – qız sözü orta cinsə aid olmuşdur" [Quirck, Wrenn, 1960]. Bu təsnifdə əsas isimlərin sonluqları rol oynamışdır. Qədim ingilis dilində isim və onu təyin edən nitq hissələri ismin cinsinə müvafiq olaraq hal, şəxs və cins şəkilçilərini qəbul etmişlər və isimlərin hansı cinsə aid olması ilk olaraq sē, sēo və þæt artikillərinə görə fərqlənmişdir: sē – kişi cinsinə ( masculine gender);sēo – qadın cinsinə ( feminine gender); þæt – orta cinsə ( neuter gender) aid isimlərlə işlədilmişdir. Hazırda bir çox Avropa dillərində, məsələn alman, fransız, ispan və s. dillərdə cinsi fərqləndirən artikillər ( der, die, das; la, le; un, una, une) işlədilməkdədir. Qədim ingilis dilində müxtəlif cinslərə aid olan isimlərə, məsələn: sē stān – stone – daş, sē bāt – boat – qayıq, sē hengest – horse –at və s. isimləri kişi cinsinə; sēo talu – tale – nağıl, sēo glōf – glove - əlcək, sēo brycg – bridge – körpü, sēo rōd – cross – keçid və s. isimlər qadın cinsinə; þæt scip – ship – gəmi, þæt bearn – baby - körpə, þæt folc - people - xalq, þæt scēāp – sheep – qoyun [Quirck, Wrenn, 1960] və s. sözləri orta cinsə aid olmuşdur. Göstərilən nümunələrdə isimlərin cinsi tam qrammatik və ya linqvistik xarakter daşıyır, onların canlı və ya cansız olması önəmli deyildir. Lakin qədim ingilis dilində sē faðer - father - ata, sē sunu – son – oğul, sē cyning – king – kral, sē froend – friend –dost; sēo moðor – mother - ata, sēo dohtor – daughter - qız, sēo cween – qween – kraliça, sēo sistor – sister – bacı isimlərində cins bölgüsü təbii-bioloji əlamətlərə əsaslanmışdır. Bu cəhətinə görə H.Suit "qədim ingilis dilində isimlərin cinslərə görə təsnifində həm təbii, həm də morfoloji xüsusiyyətlərin rol oynadığını" qeyd etmişdir [Sweet, 1871 ]. Müasir ingilis dilində qrammatik cins, cins fərqini bildirən artikillər artıq dildə mövcud deyillər.

Qeyd olunduğu kami, qədim ingilis dilində isimlərin əsas dörd: Nominative –adlıq, Genetive – yiyəlik, Dative – yönlük, Accusative – təsirlik halları olmuşdur. Beşinci hal olaraq Instrumental Case qeyd olunur ki, bu halda isimin qədim dövr ingilis dilində işlədilməsi müasir dövrdə onun " by və with sözönləri ilə işlədilməsinə uyğun gəlir" [Smith, 2010]. Anqlo-Sakson dövrü ingilis dilində isimlər qüvvətli və zəif hallanmışlar. Qüvvətli hallanmaya ( strong declension) kökündə o, u, i, e saitləri olan isimlər; zəif hallanmaya ( weak declension) kökündə n, r, s, nd samit səsləri olan isimlər aiddir [ Ilyish,1972 ]. Müxtəlif cinslərə aid olan isimlər fərqli morfoloji əlamətlərlə hallanmışlar. Məsələn,

| Tək | Cəm | Tək | Cəm |
|---|---|---|---|
| Nom. scip (gəmi-o.c.) | scipu | dæġ-gün (k.c.) | dagas |
| Acc. scip | scipu | dæġ | dagas |
| Gen. scipes | scipa | dæġes | daga |
| Dat. scipe | scipum | dæġe | dagum |

| Tək | Cəm | Tək | Cəm |
|---|---|---|---|
| Nom. hand (əl –q.c.) | handa | sunu (oğul –k.c.) | suna |
| Acc. hand | handa | sunu | suna |
| Gen. handa | handa | suna | suna |
| Dat. handa | handum | suna | sunum |

[Mitchel, Robinson, 1997].

Lakin bir faktı qeyd etmək lazımdır ki, isimlər müxtəlif cinslərə aid olmalarına baxmayaraq, demək olar ki, sinkretizm yaradan omonim şəkilçilər qəbul etməklə hallanmışlar. Bunu nümunələrdən də görmək mümkündür. T.Rastorquyeva bu cəhəti "qədim ingilis dilinin qrammatik sisteminin o qədər

də dayanıqlı olmaması" [Rastorgueva, 1983] ilə əlaqələndirir. Hətta mütəxəssislərin fikrinə görə, omonim şəkilçilərin çoxluğu ünsiyyətə, gələcəkdə yazının inkişafına mane olduğuna görə ingilis dilinin təkamülünün orta dövrlərindən başlayaraq tədricən dili tərk etməyə başlamışlar.

Qədim ingilis dilində isimlər tək (singular) və cəm (plural) olmaqla iki kəmiyyətə malik olmuşlar. İsimlər cinsindən və halından asılı olaraq müxtəlif cür cəmlənmişlər, məsələn, as, a, u, en və s. şəkilçiləri qəbul etməklə.Məsələn, stān-stānas –daş- daşlar; scip – scipu –gəmi –gəmilər, dæġ – dægas – gün – günlər, ox – oxen – öküz – öküzlər, ege – eyen – göz – gözlər və s. Lakin yuxarıda göstərilən nümunələrə əsasən ismin işləndiyi halından asılı olaraq onun cəm şəkilçisi dəyişir. Eyni zamanda, ismin təyinediciləri kimi işlənən nitq hissələri də isimin halına, kəmiyyətinə və cinsinə uyğun olaraq şəkilçilər qəbul etmişlər. Məsələn, nümunəyə nəzər salaq:

| | Tək | Cəm |
|---|---|---|
| Nom. | þæt wīf (woman – qadın) | þā wīf |
| Acc. | þæt wīf | þā wīf |
| Gen. | þæs wīfes | þāra wīfa |
| Dat. | þǣm wīfe | þǣm wīfum |
| İns. | þȳ wīfe | þǣm wīfum [ Fulk, 2014]. |

Qədim ingilis dili zəngin qrammatik vasitələrə malik olduğuna görə cümlədə söz sırası sərbəst olmuşdur. Cümlədə mübtəda + xəbər + tamamlıq (S+V+O); xəbər + mübtəda + tamamlıq (V+S+O); tamamlıq + xəbər + mübtəda (O+V+S) və s. söz sıraları işlədilmişdir. Məsələn,

On þam dæge wurdun Herodes Pilatus gefrynd – On that day were Herod and Pilate friends (cümlənin qədim ingilis dilində söz sırası) – On that day

Herod and Pilate were friends ( müasir ingilis dilində söz sırası) – O zaman Herod və Pilat dost idilər. swa eac todræfō Cristes lufu hi geleafa ealle leahtras synna fram ure heortan – so also drives Christ's love and of-him belief all crimes and sins from our hearts ( qədim ingilis dilində söz sırası) – so Christ's love and belief in him also drive all crimes and sins from our hearts – Kristin ona olan sevgisi və inamı bizim qəlbimizdəki cinayətləri və günahları da qəlbimizdən təmizləyir [ Los, Haan, 2017].

Lakin XI əsrdən başlayaraq ingilis dilinin qrammatik, həmçinin fonetik, leksik sistemində yenilənmələr baş verməyə başladı. Bu proses XI-XV əsrləri əhatə edən orta dövrdə daha geniş və məhsuldar xarakter daşımış, XV-XVIII əsrləri əhatə edən erkən müasir dövrdə də davam etmişdir. İngilis dilində baş verən orfoqrafik, fonetik və qrammatik dəyişikliklərin nəticəsi olaraq müasir ingilis dilinə bənzəyən dil formalaşmışdır. Təkamül prosesi nəticəsində isimin qrammatik kateqoriyalarından geri hal və kəmiyyət kateqoriyaları qalmış, qrammatik cins dili tərk edərək yerini təbii cinsə vermişdir. Sinkretizm yaradan hal, kəmiyyət və cins şəkilçiləri dili tərk etdiyindən dildə onların əvəzinə analitik formalar, köməkçi nitq hissələri, sözönləri işlədilməyə başlamışdır. Beləliklə, təkamülünün orta dövründən başlayaraq ingilis dili analitizmə meyl etmiş, dilin qrammatik quruluşu olduqca sadələşmişdir. İsmin dörd halından hazırda yalnız adlıq və yiyəlik halları işlədilir. Dildə yiyəlik hal 's və ya s' ilə göstərilir. İsimlər cəm formalarını –s, -es, -en şəkilçiləri ilə düzəldirlər. Cins bildirən artikillər dili tərk etmişdir. Şəkilçilərin dildə iflası ismin kateqoriyalarının da iflas etməsinə səbəb olmuşdur. Dildə baş verən bu proseslər zamanla, tədricən olmuşdur. Alimlər qədim ingilis dilində hətta X əsrdən başlayan bu dəyişiklilərdə intra-linqvistik ( dildaxili) və ekstralinqvistik ( dilxarici) təsirlərin böyük rol oynadığını qeyd edirlər. XI-XVIII əsrlər arası dövrdə ingilis dili həm Skandinav dillərinin, həm də Norman fransız dilinin təsiri ilə həm dəyişmiş, həm də söz ehtiyatı cəhətdən zəngin dilə çevrilmişdir. Eyni zamanda, ölkə daxilində baş verən ictimai-siyasi hadisələr fonunda ingilis dili başqalaşmışdır. Bu əsrlərdə ölkədə çap işinin başlanması, İntibah dövrü, maarifçilik ideyaları, ingilis romantik ədəbiyyatının inkişafı, Normanlara qarşı milli oyanış hərəkatı, dilin saflığı, onun latın mənşəli sözlərdən azad olması uğrunda başlamış purism hərəkatı ingilis milli ədəbi dilinin formalaşmasına təkan verən hadisələr olmuşlar. Qədim ingilis dili orta dövrdən başlayaraq elə dəyişikliklərə uğradı ki, o tamamilə fərqli bir dilə çevrildi. Məsələn, aşağıdakı nümunələri müqayisə edək:

1) aȝein þis eisfule whit þt hit ne eili me nawt help me mi la-lauerd –
'Against this awful creature, that it not cause trouble for me, help me, my Lord!'-
Yenə də bu dəhşətli məxluq, Allahım mənə kömək et, ondan mənə heç bir
ziyan gəlməsin.

2) yff man or woman take sekenes that day, thei shuld sone recouer – ‘If a man or woman takes sickness that day, they should soon recover’ - Əgər o gün bir kişi və ya qadın xəstələnərsə, onlar tezliklə sağalarlar [ Curzan, 2003].

Verilmiş cümlə nümunələrindən birincisi ingilis dilinin qədim dövrünə aid olduğu halda, ikinci cümlə orta dövrün sonlarına aiddir. Birinci cümləni oxuyub anlamaq nə qədər çətindirsə, ingilis dilində baş vermış yenilənmələr hesabına ikinci cümləni başa düşmək bir o qədər asandır.

İngilis dilində isimin morfoloji cəhətdən sadələşməsi onunla birgə işlənən digər nitq hissələrinin də işlənməsini sadələşdirdi və onlar arasında şəkilçilərə görə olan qrammatik uzlaşmanı aradan qaldırdı. O.Yespersen ingilis dilinin tarixən sintetik dildən analitik dilə doğru inkişaf etməsini, dilin daxili sisteminin sadələşməsini inkişaf nəzəriyyəsində ( the theory of progress) [Jespersen, 1905] yüksək qiymətləndirərək, ingilis dilinin ümumişlək dilə çevrilməsində onun böyük əhəmiyyət kəsb etdiyini qeyd etmişdir.

**NƏTİCƏ**

Qədim ingilis dilində ismin nitq hissələri sistemində, habelə dildə işlədilmə xüsusiyyətlərinin tədqiq olunması ilə bağlı aparılan araşdırmalar belə bir qənaətə gəlməyə imkan verir ki, V-XI əsrləri əhatə edən Anqlo-Sakson ingilis dilində isim, eləcə də onu təyin edən digər nitq hissələri isimlə hala, kəmiyyətə, səxsə və cinsə görə uzlaşmışlar. İsim çox mürəkkəb morfoloji quruluşa malik nitq hissəsi olmuşdur. Lakin dilin təkamülünün orta dövrlərindən başlayaraq ingilis dili daxili və xarici amillərin təsiri ilə müasir ingilis dilinə bənzəyən dilə çevrilməyə başlamışdır. İsmin şəkilçi sisteminin zəifləməsi ilə onun qrammatik kateqoriyaları da şəkilçi cəhətdən ya zəifləmiş, ya da məsələn, qrammatik cins kimi dili tərk etmişdir. Bu proses orta və erkən müasir dövrlərdə daha məhsuldar və intensiv xarakterli olmuşdur. İsimdə və ümumiyyətlə ingilis dilində baş verən dəyişikliklərin nəticəsində müasir ingilis dilinə bənzər dil formalaşmışdır. Əgər qədim ingilis dili müasir ingilis üçün yad bir dil olmuşdursa, orta dövrlərdən başlayan dəyişikliklər nəticəsində ingilis dili oxunub anlaşılan dilə çevrildi. Bu səbəbdən, C.Çoseri, V.Şekspiri oxuyub anlamaq müasir ingilis oxucusu üçün çətin deyildir.

**ƏDƏBİYYAT SİYAHISI**

1. The Cambridge History of the English Language. Volume I. The Beginnings to 1066. Edited by Hogg, Richard M. (2005). Cambridge University Press. Seventh Printing, 613 p.

2. Traugott, E.C. (1972). The History of English Syntax. A Transformational Approach to the History of English Sentence Structure. USA, Stanford University, 232 p.

3. Jespersen, O. (1954). Language; its Nature, Development and Origin. UK, London. 446 p.

4. Sweet, Henry M.A. (1883). A History of English Sounds from the Earliest Period. London, 165 p.

5. Hockett, C.F. (1958). A Course in Modern Linguistics. New York: Macmillan Company, 636 p. www.academia.edu/...

6. Quirk, R., Wrenn, C.L. (1960). An Old English Grammar. METHUEN & Co LTD. London, 174 p. www.theswissbay.ch/pdf.

7. Sweet, Henry M.A. (1871). An Anglo-Saxon Reader in Prose and Verse. Oxford University Press, 413 p. https://www.archive.org/

8. Smith, C.Alphonso. (2010). Anglo-Saxon Grammar and Exercise Book. Project Gutenberg, 218 p. https://www.gutenberg.org/...

9.Ilyish, B.A. (1972). The History of the English Language. Leningrad, “Prosveschenie”, 351 p.

10.Mitchell, Bruce., Robinson, Fred C. (1997). A Guide to Old English. Fifth Edition. Blackwell Publishers Ltd. Oxford, UK, 376 p.

11.Rastorguyeva, T.A. (1983). A History of English. Moscow,«Vysšaja škola», 347 p.

12.Fulk, R.D. (2014). An Introductory Grammar of Old English with an Anthology of Readings. Tempe, Arizona, 344 p.

13. Los, Bettelou., Haan, de Pieter.(2017). Word Order Change in Acquisition and Language Contact. Essays in honour of Ans van Kemenade. John Benjamins Publishing Company, 376 p.

14. Curzan, Anne. (2003). Gender Shifts in the History of English. Cambridge University Press, 237 p.

15. Jespersen, O. (1905). Growth and Structure of the English Language. Printed by B.G.Teubner, Leipzig, 267 p. www.forgottenbooks.com/... pdf.

# İNGİLİS DİLİNİN LÜĞƏT TƏRKİBİNİN ZƏNGİNLƏŞMƏSİNDƏ FRANSIZ DİLİNİN ROLU

**Süleymanova Günay**
Bakı Slavyan Universiteti
Xarici dil müəllimliyi
gunayenglish@gmail.com
BAKI, AZƏRBAYCAN

**XÜLASƏ**

Fransız dilindən keçən alınma sözlərin dilin zənginləşməsindəki rolunun öyrənilməsi, dil əlaqələrinin öz müxtəlifliyi və rəngarəngliyi ilə fərqləndiyi arealın dil materialları əsasında aparılması ümumi qanunauyğunluqların aşkara çıxarılmasıda müstəsna əhəmiyyət kəsb edir.

Dillərin qarşılıqlı əlaqəsindən danışarkən bir məsələni də izah etmək lazımdır. O da dillərin daxili inkişaf qanunlarıdır. Daxili inkişaf qanunları dedikdə fonetik proseslərdə, söz və ifadələrin mənasında dəyişmələrin müxtəlif formaları nəzərdə tutulur. Bu və ya başqa dildə bir dildən sözlər keçdiyi dildə çox zaman öz formalarını eyni ilə saxlamır. Başqa dillərdən keçən sözlər keçdiyi dilin daxili inkişaf qanunlarına tabe olaraq işlədilir və bunun nəticəsində çox zaman həmin sözlərin alınma olduğunu müəyyənləşdirmək olur.

Tədqiqatın obyektini ingilis dilində fransız mənşəli sözlər təşkil edir. Fonetik və qrammatik alınmaların dilə gətirilməsinin əsas vasitəsi leksik alınmalar olduğundan tədqiqat işində zəruri hallarda fonetik və qrammatik alınmalar da tədqiqatın obyekti kimi təhlilə cəlb edilmişdir.

İngilis dilinin lüğət tərkibinə daxil olmuş fransız mənşəli sözlər ingilis dilinin semantik inkişafına böyük təsir göstərmiş, bu dildə sinonimliyin və digər semantik hadisələrin meydana çıxmasına təsir göstərmişdir.

**AÇAR SÖZLƏR:** Norman işğalı, alınma sözlər, fransız dili, leksika, beynəlxalq sözlər

**АННОТАЦИЯ**

Исключительное значение в выявлении общих закономерностей имеет изучение роли заимствований, проходящих через французский язык, в обогащении языка на основе языковых материалов той местности, где языковые отношения отличаются разнообразием и окраской.

Говоря о взаимодействии языков, необходимо пояснить один вопрос. Это еще и внутренние законы развития языков. Законы внутреннего развития подразумевают различные формы изменения фонетических процессов, значения слов и словосочетаний. В том или ином языке слова одного языка часто не сохраняют свою форму в том же языке. Слова из других языков употребляются по внутренним законам развития языка, в результате чего часто определяется, что эти слова являются заимствованиями.

Объект исследования – слова французского происхождения в английском языке. Поскольку основными средствами произношения фонетических и грамматических заимствований являются лексические заимствования, фонетические и грамматические заимствования также были включены в анализ как объект исследования.

Слова французского происхождения, вошедшие в словарный запас английского языка, оказали большое влияние на семантическое развитие английского языка, повлияли на возникновение синонимии и других семантических явлений в этом языке.

**КЛЮЧЕВЫЕ СЛОВА:** Нормандское завоевание, заимствованные слова, французский язык, лексика, интернациональные слова

**ABSTRACT**

The study of the role of loanwords passing through the French language in the enrichment of the language, based on the language materials of the area where language relations are distinguished by their diversity and colour, is of exceptional importance in revealing general regularities.

When talking about the interaction of languages, it is necessary to explain one issue. It is also the internal development laws of languages. Internal development laws mean different forms of changes in phonetic processes, meaning of words and phrases. In one language or another, words from one

language often do not keep their form in the same language. Words from other languages are used according to the internal development laws of the language, and as a result, it is often determined that these words are borrowings.

The object of the study is words of French origin in English. Since the main means of pronunciation of phonetic and grammatical borrowings are lexical borrowings, phonetic and grammatical borrowings were also included in the analysis as the object of the research.

Words of French origin, which entered the vocabulary of the English language, had a great impact on the semantic development of the English language, and influenced the emergence of synonymy and other semantic phenomena in this language.

**KEY WORDS:** Norman conquest, loan words, French, lexics, international words.

Mövzunun aktuallığı. İstənilən milli dil öz xalqının mədəniyyətinin təzahürüdür, bu dildə xalq öz sosial-mədəni təcrübəsini mənimsəyir və onları əhatə edən reallıq anlayışlarını təsbit edir. Milli dil sadəcə işarələr sistemi olmaqla, xalqı ilə bərabər doğulur, inkişaf edir və müxtəlif dəyişikliklərə məruz qalır. Bununla belə, dil həm də xalq tarixinin əksidir. Müəyyən tarixi dövrlərdə dil müxtəlif millətlərdən olan insanlar arasında ünsiyyət vasitəsi ola bilir. Leksik tərkib nümunəsi xalqın digər sivilizasiyalarla necə əlaqə saxladığını göstərir. Ölkənin və adanın tarixinin dilin leksik formalaşmasına necə təsir etdiyini göstərən ən parlaq nümunələrdən biri ingilis dilidir. İngilis dilində milli dilin formalaşmasına təsir edən bütün sivilizasiyaların izləri var.

2016-cı ildə ingilis dili bütün dünyada ən çox yayılmış dillərdən biri kimi qeydə alınmışdır. Bu, otuz ölkənin milli dilidir və iyirmidən çox başqa ölkələr ingilis dilini ikinci dil olaraq istifadə edir. Dünyanın ən çox danışılan dillərindən biri olan ingilis dili bir neçə ləhcənin, demoqrafik qrupların və mədəni təsirlərin kəsişmə nöqtəsidir. İngiltərədə Roma hakimiyyəti dövrü tarixçilərin ingilis dilinin formalaşmasını anlamağa başladığı dövrdür. Tədqiqatçılar ingilis dilinin inkişafını araşdırarkən belə bir nəticəyə gəlmişlər ki, ingilis dilinin inkişafına İngiltərədəki yerli əhali, Anqlo-Sakson təsiri və nəhayət, alimlərin ingilis dilinin inkişafında müəyyənedici məqam hesab etdikləri Norman işğalı daxildir.

Norman işğalı zamanı ingilis dili ilə fransız dilinin kəsişməsi nəticəsində ingilis dilinə daxil olan sözlər müasir ingilis dilində ən əhəmiyyətli alınma sözlər təbəqəsini təşkil edir. Fransız alınma sözlərin öyrənilməsi A. İ. Smirnitski, V. D. Arakin, B. A. İliş və bir çox başqa dilçilər tərəfindən aparılmışdır.

Fransız dili, bütün digər dünya dilləri kimi, xüsusi söz sırası, leksik ehtiyat və tələffüz kimi mühüm xarakterik xüsusiyyətlərə malikdir. Mətbəx, ordu və hüquq sahələrinə aid olan sözlər digər sahələrə aid olan sözlər ilə müqayisədə daha çox inkişaf etmişdir.

**TƏDQİQATIN ÜSULLARI**

Buraxılış işi zamanı qarşıya qoyulmuş məqsəd və vəzifələrə uyğun aşağıdakı tədqiqat metodları seçilmişdir:

Problem üzrə elmi ədəbiyyatın təhlili;

Müxtəlif növ lüğətlərdən verilənlərin müqayisəli təhlili metodu;

Tədqiqatın nəzəri əsaslarının nəzərdən keçirilməsinin təsviri-analitik üsulu;

Latın etimologiyasına malik olan və üslub yaratma funksiyasını yerinə yetirən leksik vahidlərin davamlı seçmə üsulu;

Fonetik, qrammatik və leksik mənimsəmə məsələlərinin öyrənilməsi zamanı statistik-distributiv üsullardan da istifadə edilmişdir.

XII əsrin əvvəllərində İngiltərədə baş verən siyasi hadisələrə ingilis dilinin sonrakı dövrlərdəki inkişafında, demək olar ki, əsaslı dəyişikliklərin əsası qoyuldu. Demək olar ki, yüz ildən çox bir müddətdə İngiltərənin şimalını və şərqi İngiltərəni işğal etmiş skandinavlar 1016-cı ildə İngiltərəni tamamilə işğal etdilər və Danimarka kralı Svenanın oğlu Kanut İngiltərənin kralı oldu. Onun hakimiyyəti 1042-ci ilə qədər davam etmişdir. Danimarka krallığı dağılmağa başladığı üçün 1042-ci ildə ingilis-sakson mənşəli Eduard İngiltərənin kralı təyin oldu. 1065-ci ildə Eduard öləndə özündən sonra varis qoymadığı üçün müdriklər şurası Eduardın uzaq qohumu Haroldu kral seçdi. Lakin Eduardın digər qohumu Uilyam ingilis taxtına iddialı oldu. Eduardın ölümündən sonra İngiltərədə başlayan iğtişaşlardan istifadə edən Uilyam yaxşı təlim keçmiş ordusu ilə birlikdə La-Manş boğazını keçərək ingilis sahillərinə endi. 14 oktyabr döyüşündə Hastinqs, ingilis kralı Haroldun qoşunları

normanlar tərəfindən məğlub edildi və əslində məhv edildi və onlara əmr verən Kral Harold özü də öldürüldü. Fateh ləqəbli Uilyam Londona daxil oldu və orada Vestminster Abbeyində tac taxdı və İngiltərə kralı elan edildi. Uilyamın son mülkü olan Normandiya İngiltərə dövlətinin bir hissəsi oldu [7, 35].

1066-cı ildə Normanlar tərəfindən İngiltərənin işğalı başladı. Fateh Uilyamın əmri ilə anqlo-sakson feodal kübarlarının böyük bir hissəsi məhv edildi, qalan hissəsi isə döyüşlərdə həlak oldular. Öldürülmüş feodalların torpaqları və var-dövləti Uilyam tərəfindən müsadirə edildi. Bu topraqların bir hissəsi fransız mənşəli feodallara və sərkərdələrə paylandı. Həmin bu feodallara, sərkərdələrə və din xadimlərinə arxalanaraq İşğalçı Uilyam 1087-ci ilə qədər İngiltərənin kralı kimi hökmdarlıq etdi. Onun hersoqluq etdiyi Normandiya da İngiltərənin tərkibinə qatılmışdı. Bu hadisələr İngiltərə tarixində dönüş nöqtəsi oldu və ingilis dilinə əhəmiyyətli təsir göstərdi. Dil yaşayır və nəfəs alır, qidalanır və inkişaf edir, "xəstələnir" (məsələn, parazit sözlərlə örtülmüşdür) – bir çox cəhətdən gedən proseslər insan bədəninin keçirdiyi proseslərə bənzəyir. Fikrimizcə, yalnız bir əsas fərq var: dillər ölür və daha az doğulur. Görünən odur ki, əsas problem ondan ibarətdir ki, ingilis dili özünün uzun inkişaf tarixi ərzində bu və ya digər şəkildə lüğətə daxil olan xeyli sayda – təxminən 75% əcnəbi sözləri qəbul etmişdi.

Normanlar mənşəcə Skandinaviya tayfası idi (Norman – Nurman "şimal adamı" deməkdir). IX əsrdə onlar Fransanın şimal sahillərinə basqın etməyə başladılar və Sena çayının mənsəbinin hər iki tərəfindəki əraziləri ələ keçirdilər. Normanların Fransada məskunlaşması ilə İngiltərəyə hücumları arasında keçən əsr yarım ərzində onlar Fransız mədəniyyətinin güclü təsirinə məruz qala bildilər [18, 152]. Fransız sözlərinin ingilis dilinə nüfuzu yalnız 12-ci əsrdə başlamışdır. XIII-XV əsrlərdə xüsusi güc qazanmışdır. Norman işğalı ingilis dilinin lüğət tərkibinə böyük təsir göstərmişdir. Fransız dili ilə təxminən iki əsr yarım davam edən uzun sürən mübarizə prosesində ingilis dili məğlub olan fransız dilinin köməyi ilə xeyli zənginləşdi. Bu inkişaf ləng gedir. Dilin lüğət tərkibinin genişlənməsi, bir qayda olaraq, bir dilin digər dillə assimilyasiyası zamanı məğlub olan dildən sözlərin işğalı və İngiltərədə normanların gəlişi ilə yeni xüsusiyyətlər əldə etməsi ilə əlaqədar həyata keçirilmişdir. Qədim ingilislər üçün əvvəllər tanış olmayan həyat yarandı. [18, 153] Normanların İngiltərəni zəbt etməsi fransız dilinə dövlət dili statusu verdi, dominant azlıqların dili. Bütün dövlət sənədləri fransız dilində yazılırdı, məktəblərdə tədris olunurdu və görünürdü ki, o, dövlətin ümumi dilinə çevrilə bilər.

Norman işğalından sonra İngiltərədə dil vəziyyəti dəyişdi. Ədəbiyyat, hökumət və idarəetmə dili kimi qədim ingilis dilində tənəzzül baş verdi. Üç əsr ərzində ingilis cəmiyyətində katolik kilsəsinin rəsmi dili kimi latın dili, sadə insanların dili kimi xidmət edən anqlo-sakson dialektləri və dünyəvi dairələrdə istifadə olunan fransız dilinin Norman dialekti üstünlük təşkil edirdi.

Norman dialekt formasında olan fransız dili İngiltərənin rəsmi dili oldu. Buna baxmayaraq, ingilis dili aşağı təbəqələrin – kəndlilərin, kiçik torpaq sahiblərinin, şəhər sənətkarlarının və tacirlərinin ünsiyyət dili olmaqda davam edirdi.

Fransız dili ingilis dilini çox təsir göstərmişdir. Norman dilində danışanların əksəriyyəti İngiltərəyə axını ilə əlaqədar olaraq, ingilis dilində çoxlu sayda fransız dilindən alınmaları meydana çıxdı. İlk növbədə, Norman işğalı ingilis dilinin leksik tərkibində öz əksini tapmışdır. Fransız dilindən ingilis dilinə sözlərin alınma prosesi əsasən 13-cü əsrin ortalarından 14-cü əsrin sonlarına qədər müşahidə edilmişdir. XV əsrdə götürülmüş sözlərin sayı nisbətən azdır [14, 186].

Beləliklə, Normanların İngiltərəni zəbt etməsi nəticəsində fransız alınma sözləri insan fəaliyyətinin müxtəlif sahələrini əhatə edirdi.

XII-XV əsrlərdə insan hisslərinin təsviri ilə əlaqəli sfera alınma sözlər üçün təkzibedilməz hal hesab olunur, çünki insana marağın artması müşahidə olunur: fatigue – yorğun, retenue – təmkinli, miserable – miskin, yazıq, tendre – incə hisslər.

İşğalçılar fransız mədəniyyətinin və fransız dilinin daşıyıcıları olduqları üçün bu, fransız mənşəli bir çox yeni sözlərin yaranmasına səbəb oldu və müvafiq olaraq ingilis dilinin leksik tərkibində də öz əksini tapdı. Norman işğalından əvvəl ingilis dilində yalnız bir neçə fransız mənşəli söz var idi: castle, mantle, purse, trail [16, 45].

Öz növbəsində K.Brunner yalnız belə sözləri qeyd edir: proud, pride, sott (stupid), castel [6, 166]. Aram-aram, şübhəsiz ki, fransız lüğəti İngiltərə sakinlərinin gündəlik nitqinə nüfuz etdi. İşğalın təsiri yer adlarında öz izini qoydu. Normanlar böyük yaşayış məntəqələri yaratmadılar və mülklərinə və qalalarına fransızca adlar verdilər. Məsələn, Montqomeri, Kaus, Montserrat.

İşğaldan təxminən 200 il sonra fransız dili İngiltərədə kifayət qədər möhkəmləndi və geniş ictimaiyyət arasında sürətlə məşhurluq qazandı. Cəmiyyətin və qanunun aristokratik hissəsinin əsas dili olan fransız dili adi nitqdə yavaş-yavaş təsir göstərərək adi insanlar üçün getdikcə daha cəlbedici oldu. Fransız dili ingilislər arasında daha çox yayılmış və arzuolunan hala gəldikcə, ingilis nitqinə və leksikonuna daxil olan fransız sözləri və dil vahidlərinin miqdarı təbii olaraq artdı. Bundan əlavə, mövcud fransız və ingilis sözlərinin birləşməsindən əmələ gələn tamamilə yeni sözlər meydana gəldi. Törəmə morfologiyası kimi tanınan bu inkişaf, cümlələrin formalaşmasında və lüğətdə ingilis dilində əsaslı dəyişikliklərə səbəb oldu.

1250-dən əvvəl fransız dilindən alınma sözlərin sayı məhdud görünürdü; 1250-dən sonra bu rəqəm coronation (tacqoyma), princess (şahzadə), royal (kral), inspiration (ilham) və university (universitet) kimi sözlərin sayəsində fransız dilindən alınma sözlərin sayı genişləndi.

İngiltərədə danışılan fransızcanın iki qatlı xüsusiyyətinin bir nəticəsi o idi ki, çox vaxt eyni fransız sözü ingilis dilinə iki dəfə qəbul edilirdi.

İki müxtəlif formada və az-çox fərqli mənalarla. Beləliklə, müasir ingilis dilində Norman fransız dilindən gələn catch, warden, launch, wage sözləri var və onlarla yanaşı, fransız dilində eyni sözləri təmsil edən chase, guardian, lance, gage sözləri var.

Fəthdən sonra dilin lüğəti qədim ingilis dilində artıq mövcud olan prefiks və suffikslərlə formalaşmış çoxsaylı yeni törəmələrlə zənginləşmişdir. Doğma törəmə mexanizmi artıq dilin ehtiyacları üçün yetərli hesab edilmir və əsasən başqa dillərdən əldə edilən əlavələrlə tamamlanırdı.

Xarici formalaşma mexanizminin qəbulu,ehtimal ki,bir çox latın və fransız ibtidai sözlərin latın və ya fransız şəkilçiləri ilə əmələ gələn törəmələri ilə birlikdə ingiliscə alınması ilə izah edilmişdir. Buna görə də, derive və derivation, esteem və estimation, laud və laudation kimi söz cütləri ingilis dili lüğətinə yol tapmışdır.

İngilis dilində heç bir uyğunluğu olmayan -age, -al (withdrawal, upheaval, betrothal sözlərində istifadə edildiyi kimi); -ment və -able kimi bir çox fransız şəkilçiləri ingilis dilində törəmələrin formalaşmasında geniş şəkildə istifadə edilmişdir.

Fransız dilindən alınmaların başlanğıcı XI əsrin əvvəlləri hesab olunur. – İngiltərənin normanlar tərəfindən zəbt edilməsi, baxmayaraq ki, hələ bu hadisədən əvvəl ingilis və fransız xalqları arasında mədəni və iqtisadi əlaqələr nəticəsində bəzi fransız sözlərinin ingilis dilinə nüfuz etməsi tamamilə aydındır. Orta İngilis dövründə ingilis dilinə 10.000-dən çox fransız sözü gəlmişdi. Bu sözlərin təxminən 75%-i müasir ingilis dilinin lüğətində qalıb. Yəni bütün bu sözlərin ingilis dilinə birdən-birə Norman işğalı nəticəsində nüfuz etməsini düşünmək düzgün olmazdı.

Güman olunur ki, sözlərin əsas hissəsi XI əsrdə deyil, XII-XIII əsrlərdə götürülüb. Bildiyiniz kimi, Normanlar öz adətlərini, qanunlarını və mədəniyyətlərini İngiltərəyə gətirdilər. Fransız dili məhkəmə prosesinin və hökumətin rəsmi dili oldu. Məktəblərdə tədris fransız dilində aparılırdı. Bu dövrdə yeni idarəetmə formaları, yeni adət-ənənələr, ordunun yeni təşkili, təhsil və s. İlə bağlı yaranan bir çox yeni anlayışlar peyda oldu və onların təyin edilməsi üçün yeni sözlər tələb edilirdi. Bunun üçün fransız sözlərindən istifadə olunub.

1250-1400-cü illər arasında, yəni ingilis dilinin dövlətin rəsmi dili kimi bərpası prosesinin xüsusilə sürətlə getdiyi dövrdə fransız sözlərinin təxminən 40%-i ingilis dilinə assimilyasiya edilmişdir. Ona görə də belə hesab etməliyik ki, bu dövrdə İngiltərədə bir növ ikidillilik mövcud idi: bütün ingilis xalqının dili olan ümumi ingilis dili ilə yanaşı, Norman fatehlərinin dili kimi fransız dili də mövcud idi. Uilyam tərəfindən ölkəni idarə etmək üçün cəlb edilən ingilis feodalları dövlət dili kimi fransız dilindən istifadə etməyə məcbur oldular.

Bu dövrdən götürülmüş fransız sözləri xüsusi istifadə sahələrinə görə təsnif edilə bilər. Dildə olan alınma sözlərin dilə keçməsində bir neçə əsas səbəb ola bilər. Bunlardan ən əsası ünsiyyət səbəbidir.

Ünsiyyət insan həyatının vacib tərəfi kimi görülür. Biz bir-birimizlə müxtəlif səviyyələrdə, müxtəlif mövzularda, müxtəlif yerlərdə və başqa şəraitdə ünsiyyət qururuq. Bəzən konseptual aləmimizdə, şüurumuzda, mədəniyyətimizdə belə fikirlər olmadığından ana dilimizdə ifadə edə bilmədiyimiz yeni, naməlum məfhumla rastlaşırıq. Yenə də onu tanış sözlərlə ifadə etmək zərurəti həddindən artıqdır. Ona görə də biz başqa dillərdən terminlər, sözlər və başqa yeni fikir adlarını götürüb ana dilimizə daxil edirik ki, ünsiyyət aktı qorunsun. Vacib olan söz alarkən etibar etməli olduğumuz subyektivlik deyil, obyektivlikdir.

Orta İngilis dili dövrü başlayandan bəri müxtəlif sosial və intellektual barrikadalar yox oldu, beləliklə yeni alınma sözlər ingilis dilinə sərbəst daxil ola bildi. Bunlar daha çox elm və texnika zəminində kəşflərlə bağlı leksemlər idi. Səyahət məşhurlaşdıqda ingilis dilinə dəniz səyahətinə, donanmaya aid sözlər, eləcə də səfər edilən ölkələrin fauna və florasına aid əcnəbi sözlər daxil olmuşdur

İngilis dilinin tarixində, işğaldan sonrakı dövrdə ona sərvət dili olan, yuxarı cəmiyyətin savadlı üzvlərinin dili olan fransız dilindən aşağı səviyyədə yanaşılmışdır . 1066-cı ildə Norman işğalından sonra fransız dili İngiltərədə rəsmi dil oldu. Bəzi alimlər onun hətta ləkələndiyinə inanırlar – şübhəsiz ki, bu dil daha çox sənətkarlar, kəndlilər və adi fəhlələr tərəfindən danışılan aşağı bir dil kimi görünürdü. Digər tərəfdən, fransız zadəganların və saray dili idi. İlk fransız alınma sözləri müharibə, məhkəmə, qanun, əsgərlər, ordu, tac, ölkə, parça, ədalət, ofis, hökumət, parlament və dövlətlə əlaqəli terminlər idi. 16-cı əsrə qədər ingilis dilinə daxil olmaqda davam edən fransız sözlərinin demək olar ki, sonu yox idi:

Chair (stul), table (masa), furniture (mebel), dinner (nahar), supper (şam yeməyi), soup (şorba), jelly (jele), sausage (kolbasa), to fry (qızartmaq), to boil (qaynatmaq), joy (sevinc), pleasure (zövq), delight (zövq), comfort (rahatlıq), dress (paltar), color (rəng), flower (çiçək),fruir (meyvə), desire (arzu), castle (qala), mention (xatırlatma, adını çəkmə), beauty( gözəllik).

**NƏTİCƏ**

Beləliklə, tədqiqat zamanı biz ingilis dilində fransız sözlərini araşdırdıq. Tədqiqatdan sonra aşağıdakı məqsədlərə nail olundu və müəyyən nəticələr çıxarıldı:

Dillərin qarşılıqlı təsirinin tarixi təhlilini apardıqdan sonra belə bir nəticəyə gəldik ki, dillərin bir-birinə geniş təsiri Norman işğalından bir müddət sonra, İngiltərədə Norman hökmranlığı qurulan zaman (XII-XV əsrlər) başladı.

Sonradan sözlərin alınmaları yeni anlayışların, məişət əşyalarının təzahürü, ya İngiltərənin, ya da Fransanın üstünlük təşkil etdiyi ərazilərin inkişafı ilə əlaqədar baş vermişdir. Bu o deməkdir ki, sosial və mədəni şərtlər dillər tərəfindən lüğətin alınmasında əsas rollardan birini oynamışdır.

subconscious is unusually sensitive, and although the obvious result of this may not be seen now, within a year or two it is possible to encounter the child's unusually developed language abilities.

When the preschool child's vocabulary reaches several tens of words, it is possible to diversify direct educational activities with the help of audio stories in a foreign language.




1. **Pure-audio stories.** Audio stories are a great help to children in learning a foreign language. For starters, small foreign stories are the main element. For example, it is convenient to listen to stories such as "Three Little Kittens", "Three Little Pigs" together with children. (7,185) At this time, it is important that the essence of the audio story is clear, otherwise the child will quickly lose interest, so without interest, direct educational activity is not possible. will not be as efficient and effective.

2. **Audio stories.** These stories are combined with illustrative material. During the audio story, the children explore the pictures together with the teacher and pronounce the words at the same time.

3. **Sound stories.** This method is the use of story therapy methods to make listening to audio stories in a foreign language more interesting. But drawing while listening will work if the plot of the story is at least a little familiar to the child. Therefore, when the story is heard for the second or third time, the children are given a pen and paper. (8. 95-96 ) The truth is that drawing while listening is a process that affects deep skills of simultaneous perception and development of information. During the drawing, the child builds associative relationships with what he hears. Voluntarily or involuntarily, foreign words related to the plot are remembered

**Summary.**

Within the scope of this literature review, research on classroom management in foreign language education has followed predominantly qualitative methodologies with a particular emphasis on case studies, and has involved the use of classroom observations, interviews, questionnaires. In relation to the description or characterization of classroom management in foreign language education, I feel that most studies have focused on reaffirming the existence of classroom management problems in foreign language teaching. These studies have offered lists of issues or problems that foreign language teachers typically encounter in their lessons, how these problems affect teachers, how they deal with them from their own perspectives, the beliefs and views they have of classroom management, and how their previous teacher preparation coursework has influenced their classroom management practices.

**References**

1. Astafieva M.D. Holidays for children learning English. - M.: Mosaika-Sintez, (2009).

2. Guseva L.P. We play, we learn, we make things - we want to know English. – Rostov n/a: Phoenix, (2009)

3. Methods of teaching English in kindergarten. – M: S. Kristina Aleksandrovna, additional education teacher, (2017)

4. Krasyukova A.A. Some aspects of teaching a foreign language to preschool children. (2019)

5. Allwright, D., & Bailey, K. M. (1991). Focus on the language classroom. Cambridge, UK: Cambridge University Press.

6. Balli, S. J. (2009). Making a difference in the classroom: Strategies that connect with students. Lanham, US: Rowman and Littlefield.

# İELS TƏDQİQATI NÜMUNƏSİNDƏ MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN İNFORMASİYA CƏMİYYƏTİNƏ HAZIRLANMASININ TƏHLİLİ

**AYSEL HACIMURADOVA, VAQİF FƏTULLAYEV**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
SABAH qrupları
*ayselhajimurad@gmail.com, vagiffatullayev@gmail.com*
BAKI, AZƏRBAYCAN

**XÜLASƏ**

Məqalənin məqsədi İELS (Beynəlxalq Erkən Öyrənmə Tədqiqatı) tədqiqatı nümunəsində məktəbəqədər yaşlı uşaqların informasiya cəmiyyətinə hazırlanmasının təhlil edilməsidir. Məqalədə məktəbəqədər yaşlı uşaqların informasiya cəmiyyətinə inteqrasiyası mövzu ilə əlaqədar bir sıra ədəbiyyatlar və dünya təcrübəsi araşdırılaraq məlumatlar toplanmışdır. Məqalədə ölkələr üzrə İELS tədqiqatının dörd mühüm araşdırma sahəsi olan ilkin savadlılıq, ilkin hesablama, özünütənzimləmə və sosial-emosional kimi əsas bacarıqlar təhlil olunaraq ABŞ, Estoniya və İngiltərə kimi iştirakçı ölkələrin nümunələrində təqdim olunmuşdur. Həmçinin məqalədə məktəbəqədər təhsil, İELS tədqiqatı, onun ölçdüyü sahələr, tədqiqatın nəticələri ilə bağlı məlumatlar birgə analiz olunaraq məktəbəqədər yaşlı uşaqların informasiya dövrünə hazırlığı məsələsinə diqqət yetirilmişdir. Məqalənin əsas tapıntıları arasında rəqəmsal savadlılıq və texnoloji hazırlıq sahəsində uşaqların bacarıqları və istifadə dərəcəsi, sosial-emosional bacarıqların ölkələr arasında müxtəlifliyi, eyni zamanda əsas bacarıqların qız və oğlanlar arasında fərqliliyi, digər sosial-iqtisadi amillərin təsiri və ölkələrin İELS tədqiqatında iştirak dərəcələri yer almışdır. Rəqəmsal savadlılıq və texnoloji hazırlıq məsələsi İELS tətqiqatının mühüm aspekti kimi təhlil olunaraq məktəbəqədər yaşlı uşaqların erkən öyrənmə təcrübələrinin və nəticələrinin formalaşmasında rolu dəyərləndirilmişdir. Bundan başqa, məqalədə uşaqların informasiya cəmiyyətinə hazırlığının yalnız təhsil sahəsində deyil, həm də sosial və psixoloji cəhətdən də əhəmiyyətli olduğu göstərilmişdir. Bunun üçün də məktəbəqədər yaşlı uşaqların rəqəmsal bacarıqlarının və sosial-emosional inkişafının inkişafı məqsədilə təhsil sistemlərinin bu bacarıqları inkişaf etdirmək üçün daha effektiv tədbirlərin görülməsi ilə bağlı məsələlər vurğulanaraq təhsil ictimaiyyətinin diqqətinə çatdırılmışdır.

**AÇAR SÖZLƏR: İELS tədqiqatı, məktəbəqədər təhsil, rəqəmsal savadlılıq**

## ANALYSIS OF THE PREPARATION OF PRE-SCHOOL CHILDREN FOR THE DIGITAL ERA IN THE IELS RESEARCH SAMPLE

**SUMMARY**

The purpose of the article is to analyze the preparation of pre-school children for the digital era on the example of the IELS (International Early Learning Study) study. In the article, information was collected by examining a number of literatures and world experience related to topic. In the article, basic skills such as primary literacy, primary numeracy, self-regulation, and social-emotional skills, which are four important research areas of IELS research by country, were analyzed and presented in the examples of participating countries such as the United States, Estonia, and England. Among the main findings of the article are children's skills and use of digital literacy and technological readiness, differences in socio-emotional skills between countries, as well as differences in basic skills between girls and boys, the influence of other socio-economic factors, and countries' participation rates in the IELS study. The issue of digital literacy and technological readiness was analyzed as an important aspect of IELS research, and its role in the formation of pre-school children's early learning experiences and outcomes was assessed. In addition, the article shows that children's preparation for the information society is important not only in the field of education, but also socially and psychologically. For this purpose, the issues related to taking more effective measures of educational systems to develop these skills in order to develop the digital skills and social-emotional development of pre-school children were highlighted and brought to the attention of the educational community.

**KEYWORDS: IELS study, pre-school education, digital literacy**

## GIRIŞ

İstənilən ölkədə və cəmiyyətdə məktəbəqədər təhsil, bir ölkənin sosial və iqtisadi strukturlarının möhkəmlənməsi, yeniliklərin və sürətli inkişafın təmin edilməsi üçün əsas və əhəmiyyətli bir rola malikdir. Bu təhsil forması, geniş və müstəqil düşüncəli vətəndaşlar yetişdirmə, onları müxtəlif bacarıqlara və sahələrə yönəltmə və onların sosial məsuliyyət sahibi, bacarıqlı fərdlər kimi yetişmələrini təmin etməklə, bir cəmiyyətin sosial və mədəni inkişafına əvəzsiz töhfələr verir. Məktəbəqədər təhsil şagirdlərə həyatları boyunca öyrənərək, problemləri həll etmə və müstəqil olma bacarığını inkişaf etdirməklə bir cəmiyyətin intellektual potensialını artırmağa kömək edir.

Məktəbəqədər təhsil və ya digər adı ilə erkən uşaqlıq təhsili uşaqlar üçün ibtidai məktəbə qədər olan təhsilin bir mərhələsinə aid olamqla yanaşı, ömür boyu öyrənmə və insanın inkişafı üçün mühüm baza yaradır. Məktəbəqədər təhsil mərhələsi, istər emosional, istər davranış, istərsə də idrak sahəsinin inkişafı baxımından uşağın düzgün inkişafında bütün mərhələlərdən ən vacib mərhələlərdən biri hesab olunur (Scoter və d., 2001). Gungadeenə görə, oyun məktəbəqədər hazırlıq siniflərində və bağçalarda öyrənmənin əsas vasitəsidir. Oyun təxəyyül, yaradıcılıq və iştirak etmək istəyini stimullaşdırır və, əsasən, sensor fəaliyyətlərlə baş verir. Gungadeen, həmçinin müəllimlər və valideynlərin keyfiyyətli təhsili təşviq etmək üçün birlikdə çalışmalı olduqlarını vurğulayır (Gungadeen, 2010). Müasir dövr informasiya cəmiyyətidir və kompüterlər, mobil telefonlar, planşetlər və s. həyatımızın hər sahəsini əhatə edir. Cəmiyyətdə İKT-nin (İnformasiya və Kommunikasiya Texnologiyaları) istifadəsi getdikcə daha çox yayılır. Hazırda İKT-dən erkən uşaqlıq (məktəbəqdər) təhsili təcrübələrində geniş istifadə olunmur. Erkən uşaqlıq təhsilində texnologiyanın rolu çox mübahisəli olduğundan, valideynlər və pedaqoqlar onun kiçik uşaqlar üçün faydaları və ya zərərləri ilə bağlı çox narahatdırlar. Tənqidçilər bildirirlər ki, texnologiyadan istifadə prosesi sürətləndirərək və əsas öyrənmə təcrübələrini azaldaraq vaxt, pul və uşaqların normal inkişaf dövrünün düzgün inkişaf etməməsinə səbəb olur (Cordes və Miller, 2000), İKT-dən istifadənin tərəfdarları isə uşaqların bu yeni texnologiyalardan istifadə etmək imkanına malik olmasını təklif edirlər (Pudaruth, Sameerchand və Bahadoor, 2011).

Məktəbəqədər təhsil fasiləsiz təhsil sisteminin ilk pilləsi kimi fərdin, cəmiyyətin və dövlətin maraqları nəzərə alınmaqla davamlı inkişaf etdirilən prioritet fəaliyyət sahəsi olaraq ölkələrin təhsil qanununda öz əksini tapır. Azərbaycanda məktəbəqədər təhsil 0-6 yaş arası uşaqlar üçün təşkil edilir. Burada məktəbəqədər təhsilin məqsədinin uşaqların intellektual, fiziki, sosial və emosional inkişafını dəstəkləmək, onların təhsilə hazırlanmasına kömək etmək olduğu bəyan olunur. Azərbaycanda məktəbəqədər təhsil, məktəbəqədər təhsil müəssisələri və məktəblər tərəfindən təşkil olunur, dövlət tərəfindən tənzimlənir və dəstəklənir (Azərbaycan Respublikasının Təhsil Haqqında Qanunu, 2009).

Elmi ədəbiyyatlara baxdıqda uşağın məktəbdəki uğurlu təhsili, şəxsiyyət kimi formalaşması, ictimai həyatda iştirak etməsi məktəbəqədər dövrdə qoyulmuş təməldən əhəmiyyətli dərəcədə asılı olduğu qənaətinə gəlindiyini müşahidə edirik (Gungadeen, 2010; Pudaruth, Sameerchand və Bahadoor, 2011). Məktəbəqədər təhsil uşaqların oyun və əyləncə yolu ilə öyrənməsini təmin edir. Azərbaycanda məktəbəqədər təhsil, ölkədəki bütün bölgələrdə mümkündür və dövlət tərəfindən dəstəklənir. Bu təhsil növü, uşaqların daha yaxşı təhsil alması və onların təhsilə hazırlanması üçün ən yaxşı yollardan biri hesab edilir.

Beləliklə, bu mövzu müasir İELS tədqiqatı, beynəlxalq təcrübələr və müəyyən edilmiş normativ təhsil standartlarının tətbiqini özündə birləşdirməsi nöqteyi-nəzərdən olduqca əhəmiyyətli və aktualdır.

## TƏDQIQAT METODU

Məqalənin metodoloji əsasını əsas məqsədi beynəlxalq səviyyədə 5 yaşlı uşaqların erkən öyrənmə təcrübələrini qiymətləndirmək və müqayisə etmək olan İELS tədqiqatının ilkin savadlılıq, ilkin hesablama, özünütənzimləmə və sosial-emosional bacarıqları ətrafında məktəbəqədər yaşlı uşaqların informasiya cəmiyyətinə hazırlığını təhlil etmək təşkil edir. Tədqiqat metodu olaraq isə keyfiyyət metodundan istifadə edilərək toplanan məlumatlar təhlil olunmuşdur.

Məqalədə məktəbəqədər yaşlı uşaqların informasiya cəmiyyətinə inteqrasiyası mövzu ilə əlaqədar bir sıra ədəbiyyatlar və dünya təcrübəsi araşdırılaraq məlumatlar toplanmışdır. Bununla yanaşı İƏİT (İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı – OECD) tərəfindən hazırlanan son illərə dair hesabatlar təhlil olunaraq məqalədə öz əksini tapmışdır. Belə ki, məqalədə İELS tədqiqatının əsas sahələri olan ilkin savadlılıq, ilkin hesablama, özünütənzimləmə və sosial-emosional bacarıqlar təhlil edilərək bu

sahələr əsasında ABŞ, Estoniya və İngiltərə kimi ölkələrin tədqiqat nümunələri təqdim olunur. Həmçinin məqalədə məktəbəqədər təhsil, İELS tədqiqatı, onun ölçdüyü sahələr, tədqiqatın nəticələri ilə bağlı məlumatlar birgə analiz olunaraq məktəbəqədər yaşlı uşaqların informasiya dövrünə hazırlığı məsələsinə diqqət yetirilmişdir. Digər tərəfdən, rəqəmsal savadlılıq və texnoloji hazırlıq məsələsi İELS tətqiqatının mühüm aspekti kimi təhlil olunaraq məktəbəqədər yaşlı uşaqların erkən öyrənmə təcrübələrinin və nəticələrinin formalaşmasında rolu dəyərləndirilmiş, məktəbəqədər yaşlı uşaqların informasiya cəmiyyətinə hazırlanması ilə əlaqədar müasir elmi ədəbiyyat və dünya təcrübəsi tədqiq olunmuşdur.

**İELS tədqiqatı nədir?**

Beynəlxalq erkən öyrənmə tədqiqatı olan İELS (International Early Learning Survey) dünya ölkələri üzrə 5 yaşlı uşaqların erkən öyrənmə təcrübələrini anlamaq və müəyyən təkmilləşdirmələr aparmağa yönəlmiş Amerikanın Milli Təhsil Statistikaları Mərkəzi (NCES) tərəfindən həyata keçirilən beynəlxalq tədqiqatdır. İELS tədqiqatı dörd mühüm sahədə uşaqların bacarıqlarını ölçmək məqsədi ilə oyun əsaslı qiymətləndirmədən istifadə edir. Həmin dörd sahə bunlardır: ilkin savadlılıq, ilkin hesablama, özünütənzimləmə və sosial-emosional bacarıqlar (OECD, 2024).

İlkin savadlılıq dinləyib-anlama, söz ehtiyatı kimi mühüm komponentləri özündə birləşdirir. İlkin hesablama saymaq, sadə riyazi anlayışları bilmək və tətbiq etmək, uzunluq və çəkiləri müqayisə etmək, həmçinin fiqurların ayırd edilməsi kimi bacarıqları özündə əks etdirir. Özünütənzimləmə diqqətin cəmlənməsi, verilən tapşırıqlara əməl edilməsi, yadda saxlanması və s bu kimi zehni bacarıqları əhatə edir. Sonuncu sahə olan sosial-emosional bacarıqlara isə ünsiyyətin qurulması, duyğu və hisslərin idarə olunması, əməkdaşlıq bacarıqları daxildir (OECD, 2021).

İELS tədqiqatı ilk olaraq 2018-ci ildə pilot şəkildə həyata keçirilmişdir. Bu tədqiqatda İƏİT (İqtisadi Əməkdaşlıq və İnkişaq Təşkilatı - OECD) ölkələrindən 3 ölkəsi - İngiltərə, Estoniya və ABŞ iştirak etmişdir. Hər bir ölkədə layihə meneceri tərəfindən idarə olunan milli tədqiqat mərkəzi yaradılmışdır (OECD, 2019).

İELS tədqiqatı dünya ölkələrini 5 yaşlı uşaqların öyrənmə təcrübələrini, bacarıqlarını müzakirə və müqayisə etmək üçün ortaq bir platforma ilə təmin etmək funksiyası daşıyır. İELS tədqiqatı ən yaxşı təcrübələri müəyyən etmək və təhsil imkanlarını yaxşılaşdırmaq üçün təhsil siyasəti qərarlarının qəbulu haqında qlobal çağırışlar etməyi hədəfləyir. Bundan başqa, İELS tədqiqatının ikinci mərhələsinin 2024-cü ildə 10 ölkənin iştirakı ilə keçiriləcəyi gözlənilir ki, həmin ölkələrdə biri də Azərbaycandır (OECD, 2023).

**Qiymətləndirmə və iştirak**

Beynəlxalq Erkən Öyrənmə Tədqiqatı (IELS) ölkələr üçün uşaqların inkişafını qiymətləndirmək və təkmilləşdirmək, təkmilləşdirmələrin harada və necə həyata keçirilə biləcəyi barədə məlumat təqdim etmək və ölkələrə bir-birindən öyrənmək imkanı verən bir vasitə kimi vurğulanır. İELS müxtəlif uşaq qruplarının, o cümlədən oğlanlar və qızlar, müxtəlif sosial-iqtisadi mənşəli ailələr və miqrant qrupların vəziyyətini, uşaqların nəticələri arasındakı fərqi, onların öyrənmə və inkişafına hansı amillərin mənfi və müsbət təsir göstərdiyini qiymətləndirir (OECD, 2024).

Bu tədqiqatın əsas hədəf qrupu beş yaşlı uşaqlardır. Tədqiqatda birinci mərhələdə təsadüfi məktəblərin seçimi, ikinci mərhələdə yaş tələblərinə cavab verən uşaqların təsadüfi seçimini əhatə edən iki mərhələli təsadüfi seçmə metodundan istifadə edilmişdir. Bunun seçim nəticəsində 7000-ə yaxın uşaq istirak etmişdir. Təhsilin mərhələləri ölkələr arasında, hətta bəzən ölkə daxilində dəyişə bildiyi üçün qiymətləndirmələr təhsilin müəyyən mərhələsində deyil, ümumi 5 yaşında olan uşaqlar arasında aparılmışdır.

Bu tədqiqatda uşaqların öyrənmə və inkişafı oyuna əsaslanan birbaşa qiymətləndirmə, valideyn və müəllim sorğularının toplanması ilə qiymətləndirilir. Birbaşa qiymətləndirmə zamanı planşetlərdən istifadə etməklə, hər biri 15 dəqiqə olan iki gündə iki fəaliyyət keçirilmişdir. Burada adları və fiziki xüsusiyyətləri hər bir ölkənin kontekstinə uyğunlaşdırılmış olan iki baş qəhrəmanın olduğu audiolar uşaqlara rəhbərlik edirdi. Birbaşa qiymətləndirmə zamanı oxu və yazıdan deyil, yalnız vizual və audio materiallardan istifadə edilmişdir. Uşaqlara verilən suallar, əsasən, müxtəlif fiqurlar və əyləncəli şəkillərdən təşkil olunur.

Valideyn və müəllim sorğularında uşaqların valideynlərindən və onları ən yaxşı tanıyan müəllimlərindən uşaqların idrak, davranış və sosial-emosional bacarıqları ilə bağlı məlumatlar alınmışdır. Həmçinin burada valideynlərin ailənin demoqrafik tərkibi, uşağın evdəki təhsil mühiti ilə

əlaqədar məlumatlar da təqdim etmişdir. Sorğu zamanı valideyn və müəllimlər "heç vaxt", "nadir hallarda", "bəzən", "tez-tez" və ya "həmişə" kimi cavab variantlarında istifadə edərək uşaqlarının erkən öyrənmə təcrübələrini bölüşmüşdür (OECD, 2021).

Tədqiqatda iştirak dərəcəsi digər tədqiqatlara nisbətdə yüksək idi. Müəllimlərin cavabları hər bir ölkə üçün 90% və daha yüksək olmuşdur. Valideynlərin iştirak dərəcəsi bir qədər aşağı olsada, uşaqlarının iştirakına rahatlıqla razılıq vermş və sorğu anketlərini fəal şəkildə doldurmuşdurlar (OECD, 2021).

| | İngiltərə (%) | Estoniya (%) | ABŞ (%) |
|---|---|---|---|
| Uşaq | 520 | 511 | 521 |
| Valideyn | 460 | 513 | 516 |
| Müəllim | 521 | 477 | 464 |

**Cədvəl 1.** İELS 2018 tədqiqatına əsasən ölkələr üzrə iştirak dərəcələri

**Rəqəmsal savadlılıq və texnoloji hazırlıq**

Rəqəmsal savadlılıq və texnoloji hazırlıq bu tədqiqatın mühüm aspektləridir, çünki onlar uşaqların erkən öyrənmə təcrübələrinin və nəticələrinin formalaşmasında mühüm rol oynayır. Rəqəmsal savadlılıq informasiya əldə etmək, qiymətləndirmək, yaratmaq və məlumatı çatdırmaq üçün rəqəmsal texnologiyalardan, o cümlədən kompüterlər, planşetlər, smartfonlar və internetdən səmərəli istifadə etmək bacarığına aiddir (Scoter və d., 2001).

İELS tədqiqatı kontekstində rəqəmsal savadlılıq və texnoloji hazırlıq uşaqların ümumi inkişafına və rifahına təsir edən mühüm amillərdir. Tədqiqatçılar bu aspektləri uşaqların rəqəmsal alətlərdən və resurslardan istifadə bacarıqlarını qiymətləndirmək, erkən uşaqlıq dövründə rəqəmsal öyrənmə mühitlərinin mövcudluğunu və keyfiyyətini qiymətləndirmək və müsbət təlim nəticələrinin və sosial-emosional inkişafın təşviqində texnologiyanın rolunu araşdırmaq yolu ilə araşdıra bilərlər.

Əlavə olaraq, 2018-ci ildə PİSA (Program for International Student Assessment) tədqiqatı çərçivəsində aparılan sorğuya əsasən iştirakçıların sadəcə 20%-nin 6 yaşdan əvvəl rəqəmsal cihazlara çıxışı olmuşdur və bu göstəriciyə malik şagirdlərin nəticələri də digər həmyaşıdlarına nəzərən daha yüksək olmuşdur (OECD, 2021).

İELS tədqiqatının iştirakçısı olan ölkələrdə isə rəqəmsal cihazların uşaqlar üzrə istifadə nisbəti daha çox ABŞ-da, daha az isə Estoniyada müşahidə olunmuşdur (OECD, 2021).

| | Hər gün | Ən azı həftəlik, lakin gündəlik deyil | Ən azı aylıq, lakin həftəlik deyil | Nadir hallarda və ya heç vaxt |
|---|---|---|---|---|
| İngiltərə | 39% | 46% | 9% | 6% |
| Estoniya | 39% | 39% | 13% | 9% |
| Amerika Birləşmiş Ştatları | 49% | 40% | 7% | 5% |

**Şəkil 1.** İELS 2018 tədqiqatına əsasən beş yaşlı uşaqların rəqəmsal cihazlardan istifadə nisbətləri

**İELS ölçmə sahələri üzrə tədqiqat nəticələri**

*Sosial-emosional bacarıqları.* Uşaqların sosial-emosional bacarıqları onların ümumi rifahında, inkişafında həlledici rol oynayır və məktəbdə, həmçinin ondan kənarda müvəffəqiyyət üçün əhəmiyyətli dərəcədə təsir göstərir. Tədqiqat müxtəlif ölkələrdən, müxtəlif mənşəli uşaq qrupları arasında sosial-emosional bacarıqlardakı fərqləri görməyə imkan verir. Buradakı nəticəyə əsasən, Estoniyalı uşaqlar İngiltərə və ABŞ-dakı uşaqlarla müqayisədə başqalarının emosiyalarını müəyyən etməkdə daha yüksək dəqiqlik və yüksək sosial davranış səviyyəsi nümayiş etdiriblər (OECD, 2021). Bundan başqa, qızlarən ardıcıl olaraq bütün ölçülərdə oğlanlara nisbətən daha çox inkişaf etmiş sosial-emosional bacarıqlar nümayiş etdirdiyi müşahidə edilmişdir. İmkanlı ailələrdən olan uşaqlar digər həmyaşıdları ilə müqayisədə daha yüksək sosial-emosional nəticələr nümayiş etmişdir ki, bu da ailələrin sosial-iqtisadi vəziyyətinin uşağın erkən inkişafı ilə bağlı olduğunu göstərir. İmmiqrant mənşəli, fərqli ana dilində danışanların sosial davranış və inam səviyyəsinin isə aşağı olduğu ortaya çıxmışdır (OECD, 2021).

| | Emosiyaların müəyyən edilməsi | Emosiyaların əlaqələndirilməsi | Prososial davranış | Güvən | Qeyri-dağıdıcı davranış |
|---|---|---|---|---|---|
| Estoniya | 511 | 500 | 511 | 503 | 470 |
| İngiltərə | 497 | 500 | 495 | 504 | 515 |
| ABŞ | 493 | 500 | 494 | 493 | 515 |

**Cədvəl 2.** İELS 2018-ə əsasən ölkələr üzrə sosial-emosional bacarıqlarının orta balları

*Özünütənzimləmə bacarıqları.* Bu sahə üzrə üç aspekt əsasında qiymətləndirmə aparılmışdır: inhibisiya (inhibition), zehni çeviklik (mental flexibility) və aktiv yaddaş (working memory). Estoniyalı uşaqlar hər üç aspektdə daha yaxşı nəticə göstərmiş və qızlar oğlanları bütün sahələrdə üstələmişdir. Digər iki ölkədə isə estoniyalılarla müqayisədə inhibisiya aspekti üzrə İngilislər çata bilməsə də, Amerikalıların nəticələri müqayisə oluna bilərdi. Qalan iki aspekt üzrə isə ABŞ hər iki ölkədən aşağı nəticə göstərmişdir. İngiltərə isə yalnız zehni çeviklikdə hər iki ölkəni üstələmişdir (OECD, 2021).

| | İnhibisiya | Zehni əsnəklik | Aktiv yaddaş |
|---|---|---|---|
| Estoniya | 520 | 511 | 521 |
| İngiltərə | 460 | 513 | 516 |
| ABŞ | 521 | 477 | 464 |

**Cədvəl 3.** İELS 2018-ə əsasən ölkələr üzrə özünütənzimləmə bacarıqlarının orta balları

*İlkin savadlılıq və ilkin hesablama bacarıqları.* Bu göstəricilər üzrə digərlərindən fərqli olaraq İngiltərədən olan 5 yaşlı uşaqlar hər iki göstərici üzrə ilk sırada yer almışdır. ABŞ ən aşağı balları topladığı halda, Estoniya isə ilkin savadlılıq üzrə İngiltərəyə yaxınlaşsa da, ilkin hesablama üzrə isə İngiltərədən aşağı, lakin ABŞ-dan yüksək nəticə toplamışdır (OECD, 2021).

| | İlkin savadlılıq balı | İlkin hesablama balı |
|---|---|---|
| Estoniya | 508 | 500 |
| İngiltərə | 515 | 529 |
| ABŞ | 477 | 471 |

**Cədvəl 4.** İELS 2018-ə əsasən ölkələr üzrə ilkin savadlılıq və ilkin hesablama bacarıqlarının orta balları

**NƏTICƏ**

Yekun olaraq, belə qənaətə gələ bilərik ki, məktəbəqədər dövrün inkişafına sərmayə qoymaq təkcə uşaqlara deyil, hər kəsə fayda verir. İELS ölkələrə məktəbəqədər təhsilin təkmilləşdirilməsində bir-birlərinin uğurlarından və çətinliklərindən öyrənməyə imkan verir, nəticədə bütün uşaqlar üçün effektivliyi və bərabərliyi artırır. Bir-birinin təcrübələrindən öyrənmək dünyanın hər bir yerində uşaqlar üçün daha yaxşı nəticələrə gətirib çıxara bilər.

İELS tədqiqat nəticələri uşaqların informasiya cəmiyyətinə hazırlığının yalnız təhsil sahəsində deyil, həm də sosial və psixoloji cəhətdən də əhəmiyyətli olduğu göstərir. Bunun üçün də məktəbəqədər yaşlı uşaqların rəqəmsal bacarıqlarının və sosial-emosional inkişafının inkişafı məqsədilə təhsil sistemlərinin bu bacarıqları inkişaf etdirmək üçün daha effektiv tədbirlər görməsi vacibdir. Bundan başqa, texnologiya uşaqların öyrənmələri və dünyalarını anlamlandırmaları üçün alternativ yollar təqdim edə bilən bir vasitədir, lakin o, heç vaxt konkret materialların və manipulyasiyaların istifadəsini əvəz etməməlidir. Uşaqlara uşaq bağçasının təqdim etdiyi bütün ənənəvi təcrübələrlə birlikdə kitabdan istifadə etməyə, qələm və karandaşlardan istifadə edərək kağız üzərində rəsm çəkməyə icazə verilməlidir. Uşaqları müasir texnologiyadan nə tam məhrum etmək, nə də onları tamamilə müasir texnologiyalarla baş-başa buraxmaq olmaz. İnformasiya cəmiyyətinə uşaqların daha sağlam və savadlı hazırlanması üçün texnologiyadan balanslı istifadə mühüm şərtdir.

**ƏDƏBIYYAT SIYAHISI**

1. Cordes, C., & Miller, E. (2000). Fool's Gold: A Critical Look at Computers in Childhood. Alliance for Childhood.
2. Gungadeen, A. (2010). The 'Talking Book' - an effective and instructional approach in the learning process for the pre-primary children in Mauritius: Opening.
3. OECD (2021), Assessment framework for the International Early Learning and Child Well-being Study, OECD Publishing, Paris.
4. Pudaruth, Sameerchand & Bahadoor, B. (2011). Integrating ICT in Pre-Primary Education: The Case of Mauritius. International Journal of Education, 3.
5. Scoter, Judy & Ellis, Debbie & Railsback, Jennifer. (2001). Technology in Early Childhood Education: Finding the Balance. By Request Series.

# VALİDEYN TƏZYİQİ İLƏ İXTİSAS SEÇİMİNİN GƏLƏCƏK KARYERAYA TƏSİRİ

**AYDAN ŞƏKİXANLI**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
SABAH qrupları
*shakikhanliaydan@gmail.com*
BAKI, AZƏRBAYCAN

**XÜLASƏ**

Karyera seçiminə təsir edən bir çox daxili və xarici faktorlar vardır. Belə ki, fərdlərin peşə seçiminə təsir edən ən önəmli faktorlardan biri də valideyn amilidir. Bu təsir bəzi valideynlərin (qəyyumların) uşaqlarını peşə seçimində dəstəkləməsi, məcbur etməsi və ya laqeydlik göstərməsi şəklində özünü büruzə verir. Valideynlərin təzyiqlə öz uşaqlarını ixtasaslara yönləndirməsinin nəticələrinin qənaətbəxş olmadığı hesab edilir. Tədqiqat işinin aktuallığını və bu istiqamətdə aparılmış digər tədqiqatların nəticələrini göstərmək üçün son dövrlərin xarici ədəbiyyatları araşdırılmışdır. Təhlil olunan mənbələr və tədqiqatlar vasitəsilə peşə seçimində valideynlərin nə qədər rola malik olduqları aydınlaşdırılmışdır. Həmçinin valideynlərinin arzularını yerinə yetirərək peşə seçimi edən şəxslərin karyeralarında müvəffəqiyyətli ola bilib-bilmənəsi və bunun onların gələcək iş fəaliyyətlərində iş məmnuniyyətlərinə nə dərəcədə təsir edə biləcəyi tədqiqatın əsas prioritetləri arasındadır. Öz ixtisası üzrə peşə fəaliyyətini davam etdirməyən 30 respondent arasında qarışıq metodlarla sorğu aparılmış və əldə olunan nəticələr təhlil olunmuşdur. Sorğu əsasında proporsional hipotez testi aparmaq üçün ikitərəfli hipotez qurulmuşdur. Tədqiqatın aydınlaşdırmaq istədiyi əsas məqamlar bunlardır: a) valideyn təzyiqi ilə ixtisas seçən insanların öz sahələri üzrə işləmir və ya ümumiyyətlə peşə fəaliyyəti göstərmir; b) karyeralarında o qədər də uğurlu olmurlar. Testi apararaq bu istiqamətdə öz fərziyyəmizin Azərbaycan kontekstində təsdiqini tapıb-tapmadığı da müəyyən edilmişdir. Bundan başqa, apardığımız tədqiqatda valideyn təzyiqinin neqativ nəticələrinin araşdırılması nəticəsində əldə olunan tapıntılar vasitəsilə tövsiyələr verilmişdir. Ümumilkdə apardığımız bu tədqiqatın nəticələri geniş təhsil ictimaiyyəti, valideynlər, müəllimlər, tələbə və abituriyentlər üçün faydalı olacağı düşünülür.

**AÇAR SÖZLƏR: karyera, məcburi seçim, valideyn təsiri, peşə seçimi**

## THE EFFECT OF THE CHOICE OF SPECIALIZATION THROUGH PARENTAL PRESSURE ON THE FUTURE CAREER

**ABSTRACT**

There are many internal and external factors that impact career choice. Thus, one of the most crucial factors affecting the choice of profession of individuals is the parental factor. This influence

manifests itself in the form of some parents (or guardians) supporting, forcing or neglecting their children in choosing a profession. It is considered that the results of parents directing their children to specializations under pressure are not satisfactory. In order to demonstrate the relevance of this study and the results of other studies conducted in this direction, the foreign literature of recent years have been examined. Through the analyzed sources and studies, it was clarified how much role parents have in choosing a profession. Furthermore, the main priorities of the research are whether the people who choose their profession by fulfilling their parents' wishes can be successful in their careers and to what extent this can affect their job satisfaction in their future workforce. A mixed methods survey was conducted among 30 respondents who did not proceed professional activities in their specialty and the obtained results were analyzed. Based on the survey, a two-sided hypothesis was formed to conduct a proportional hypothesis test. The main points that the study aims to clarify are: a) people who choose a specialty due to parental pressure do not work in their fields or they are unemployed; b) they are not very successful in their careers. By conducting the test, it was also determined whether our hypothesis in this direction was confirmed in the context of Azerbaijan. In addition, in our study, recommendations were pointed out through the findings obtained as a result of examining the negative consequences of parental pressure. In general, the results of this research are thought to be useful for the general education community, parents, teachers, students and university applicants.

**KEY WORDS: career, obligatory choice, parental influence, career choice**

## GIRIŞ

Günümüzdə az müşahidə olunsa da, məcburi peşə seçimi öz fəsadlarını göstərməkdədir. İnsanların istəmədiyi ixtisaslara yiyələnməsi, onlarda peşəyə məsuliyyətini və iş keyfiyyətini azaltmış olur. Xüsusilə də şagird qəyyumlarının bu mövzuda maarifləndirilməsi çox önəmlidir. Tədqiqatlar da bunu deməyə əsas verir ki, peşə-ixtisas seçimində ən böyük təsiri valideynlər göstərməkdədir. Bu təsir müsbət və ya mənfi ola bilər.

İxtisas seçimində valideyn təzyiqinin şagirdlərin gələcək karyeralarına təsirləri nələrdir? Orta məktəbi bitirmiş gənclərin əksəriyyəti hər il keçirilən dövlət imtahanlarında iştirak edir və müxtəlif sahalər üzrə peşə-ixtisas seçimləri edir, təhsillərini bu yöndə davam etdirirlər. Hər birimizin uşaqlıqda gələcəklə bağlı müəyyən təsəvvürümüz olur. Bu fikirlər məktəb həyatı boyu, dostların, müəllimlərin, mühitin, qəyyumların bu və ya digər şəkildə təsiri ilə təkmilləşərək formalaşır. Arzuolunmaz faktlardan biri də budur ki, bir çoxları valideynlərin təzyiqi ilə hərəkət edir, onların "arzular"-nı reallaşdırmağa çalışır və qoyulan məqsədə ya çatılmır, ya da əldə olunan nəticələr qənaətbəxş olmur. Tədqiqatın əsas məqsədi də bunu əsaslandırmaqdır.

Araşdırmalar göstərir ki, karyera seçimində valideyn, media və şəxsi seçimlər kimi amillərin rolu var (Saleem və d., 2014) . Aparılmış bir çox tədqiqatlarda peşə seçimlərinə təsir edən amillər sırasında müəllim və dostlar da vurğulanır. Lakin nəticələr sübut edir ki, müəllimlərin bu prosesdə elə də güclü təsirləri yoxdur. Hətta həmyaşıdların təsir gücü bundan qat-qat artıqdır. Hər bir halda seçimlərə edilən təsirlərdə ən böyük pay valideynlərə düşür. Bu tədqiqat da uşaqlarda həvəs yaradacaq məsləhət xarakterli tədbirlərin həyata keçirilməsini və qəyyumların təsir gücünün minimuma endirilməsini dəstəkləyir. Toplanılmış datalardan da açıq aşkar məlum olur ki, valideynlər “uşaqlarımın maraqları mənim arzularımdan daha vacibdir” fikri ilə razılaşmırlar (Owusu və d., 2021).

Araşdırmalar həm də bunu isbatlayıb ki, inkişaf etmiş ölkə vətəndaşları karyera seçimində, inkişaf etməkdə olan ölkələrə nisbətdə daha sərbəst və azaddır. Bu mədəniyyət, media, yeni texnoloji imkanlara çıxış kimi faktorlardan asılı ola bilər (Olaosebikan və Olusakin, 2014).

Dietrich and Kracke valideyn dəstəyini qiymətləndirmək məqsədilə təhlillər aparıb və karyera seçimində 3 tip valideyn davranışı müəyyənləşdiriblər: a) dəstəkləyici tip - uşaqların valideynləri tərəfindən seçimlərində dəstəklənməsi; b) müdaxilə tipi - valideynlər uşaqlarının seçimlərinə nəzarət edir, özlərinə uyğun qərarların icrasına məcbur edirlər; c) laqeydlik - uşaqların maraq dairələrindən məlumatlı deyillər (Dietrich və Kracke, 2009). Buna övladlarla yaşamamaq, ağir iş saatlarının olması, uşaqlara ayrılacaq vaxtın az olması, tək valideynlik kimi amillər səbəb ola bilər (Pečjak və Pirc, 2020). Karyera seçiminin ilk mərhələsində valideynlərin məsləhətlər əsasında dəstək olması, onları gələcəkləri barəsində maraqlandırmağa həvəsləndirmiş olur (Olaosebikan və Olusakin, 2014). Əks halda, valideynin ciddi nəzarəti və müdaxilələri uşağın inkişafında və karyeraya hazırlığında passivliyə gətirib çıxara bilər (Noack və d., 2010). Valideyn münasibətinin sonuncu forması olan

laqeydlik isə yeniyetmələrdə gələcəklə bağlı qeyri-ciddi fikirlər yarada bilər. Karyeranın elədə əhəmiyyətli olmaması fikri uşaqların inkişafını ləngidə bilər (Mortimer və d., 2002).

Günü-gündən artan rəqabət daha yaxşı peşə seçimləri üçün yüksək akademik nəticələr tələb edir. İxtisas seçimi yetişdikdə isə valideynlər uşaqlarının seçimlərini düzgün dəyərləndirə bilmir və seçim məqsədlərini tam olaraq anlamırlar. Bunun səbəbi, valideynlərin mövcud karyera seçimlərindən və ən son tendensiya, yeniliklərdən xəbərdar olmamasıdır. Bəzən valideynlər karyera seçimlərini qiymətləndirərkən onların daha çox hamı tərəfindən bilinən və sabit olan ixtisaslar olmasını nəzərə alırlar. Bəzi valideynlər isə övladları vasitəsilə öz arzularına çatmaq istəyirlər. Tədqiqatlar sübut edir ki, fərdi şəkildə peşə seçənlər həm akademik fəaliyyətlərində, həm də iş həyatlarında daha çox uğurlu olurlar. Kemboi və digər müəlliflərin 399 bakalavr tələbəsi ilə apardığı sorğuda öz istək, arzu və səriştələrinə uyğun peşə seçənlərin motivasiyalarının daha yüksək olduğu və gələcəyi ilə bağlı daha qəti məqsədlər qoya bildikləri üzə çıxarıldı. Tələbələrin maraq dairələrindən xəbərdar olması və həmin istiqamətdə yönəlməyə çalışması onların daha çox müvəffəqiyyət eləyə biləcəyinə zəmanət verir. Onların özgüvən səviyyələri digər tələbələrlə müqayisədə yüksəkdir (Kemboi, Kindiki və Misigo, 2016). Məcburiyyətlə edilmiş ixtisas seçimlərinin nəticəsi isə tələbələrdə ümidsizləyə, depressiyaya yol açır. Halbuki valideyn və öyrənənlərin seçimdə birgə qərar vermələri daha yüksək performans göstəricilərinə sahibdir. Valideynlər övladlarını öz gözləntiləri ilə yükləmək əvəzinə, onların maraqlarını anlamalı və dəstək olmağa çalışmalıdırlar (Singh, 2015).

Ardıcıl tədqiqatlar deməyə əsas verir ki, ailə vəziyyətinin peşə istiqamətində 5 fərqli təsir formaları mövcuddur:

1) *Məcburiyyət* - istək və maraqlara göz yummaq, valideynlərin arzularına uyğun gözləntilər formalaşdırması;

2) *Valideynlərin peşəsi* - Bir çox hallarda valideynlər özlərinin yaxşı bildikləri istiqamətlərdə yeniyetmələri yönəldirlər;

3) *Ailənin maddi durumu* - Yeniyetmələr istəmədikləri halda ailəyə maddi dəstək olmaq məqsədilə tələbatlarını istəklərindən üstün tuturlar;

4) *Məlumatsızlıq* - ixtisaslar haqqında informasiyaya malik olmamaq və valideynlərin yönləndirə bilməməsi;

5) *Valideynlərin gözləntiləri* - Bu keyfiyyət araşdırması da valideyn təzyiqini ən güclü təsir amili kimi aşkara çıxarılıb. Burada ataların rolu daha çox qabardılıb (Amani və Mkumbo, 2018).

Nəzərə almalıyıq ki, valideynin uşaqlara təsiri hər zaman pozitiv istiqamətdə ola bilməz. Clutter bu səbəbdən valideynlərin bir qisminin karyera seçimlərində bir o qədər də dəstəkləyici olmadığı qənaətindədir (Clutter, 2010). Buna görə də, məktəb psixoloqları, konsultantlar peşə məcburiyyəti problemini aradan qaldırmaq üçün valideynlərlə daim kontaktda olmalıdır (Kumar, 2016).

Son illərdə aparılmış tədqiqatlar da deməyə əsas verir ki, valideynlərin neqativ yöndə övladlarına təsiri və peşə seçimində məcburiyyətlər hələ də hökm sürür. Belə ki, 2021-ci il Amerikada 810 respondent arasında keçirilən kəmiyyət sorğusunda məlum olur ki:

a) insanların demək olar ki, 40%-i peşələrini valideyn təzyiqi nəticəsində müəyyənləşdiriblər;

b) respondentlərin yarıdan çoxu düşünür ki, onlar valideynləri tərəfindən peşə təhsillərini davam etdirməyə vadar ediliblər *(X nəsilin 48%-i, Millenial nəslin 57.6%-i və Z nəslinin 57%-i bu fikirdədir (X nəsli- 1964-1976-cı illərdə anadan olanlar; Y və ya Millenial nəsli- 1977-1995-ci illərdə anadan olanlar;Z nəsli- 1996-cı il və ondan sonrakı illərdə anadan olanların nəsli)*;

c) hər 3 valideyndən 2-si, övladlarının seçimlərindən narazıdır (13).

Müxtəlif ədəbiyyatların təhlili nəticəsində şahidi olduq ki, bu mövzu ilə bağlı Azərbaycanda tədqiqat aparılmayıb. Valideynin peşə seçiminə təsiri ilə bağlı geniş məlumat əldə etsək də, bu təsirin gələcək karyerada nə kimi fəsadları ola biləcəyi ilə bağlı mənbələrə rast gəlmədik. Tədqiqatı aparmağımızda məqsəd qarşılacağımız mənfi nəticələrin varlığını sübut etmək, təhlil etmək və qısa şəkildə məsləhətlərlə yekunlaşdırmaqdır.

**TƏDQIQAT METODU**

Tədqiqatı həyata keçirərkən daha etibarlı nəticələr əldə etmək üçün qarışıq metoddan istifadə uyğun görüldü. Seçməmizi qartopu üsulu ilə edərək, ixtisası üzrə işləməyən insanlara sorğular ünvanladıq. Bununla biz valideyn təzyiqinin bu problemin qaynağı olub-olmadığını müəyyən etmiş olacağıq. Tədqiqat alətimiz sorğu şəklində olmaqla açıq və qapalı sualları özündə ehtiva edir. Sorğuda valideyn təzyiqinin iştirakçıların karyera həyatına müsbət və ya mənfi istiqamətdə araşdırmağa

çalışdıq. Tədqiqatda həmçinin karyera yolunu dəyişən respondentlərin daha çox hansı istiqamətlərə yönəldiyini öyrənmiş olduq.

**Sorğu.** Anketdə 15 sual olmaqla həm açıq, həm də qapalı suallardan istifadə edilib. Qapalı suallarda Likert şkalası, eləcə də nominal şkalaya uyğun suallar öz əksini tapıb. 30 nəfərin iştirak etdiyi sorğuda mövzuya uyğun olaraq 0 hipotezi və alternativ hipotez yaradılıb. Məqsədimiz alternativ hipotezimizi dəstəkləyə bilib-bilməyəcəyimizi müəyyən etməktir:

1. $\mathbf{H_0}$: Valideyn təsiri ilə peşə seçənlərin 50%-dən çoxu karyeralarını həmin istiqamətdə davam etdirir.
2. $\mathbf{H_a}$: Valideyn təsiri ilə peşə seçənlərin 50%-dən çoxu ixtisası üzrə işləmir və ya ümumiyyətlə işləmir.

**Tapıntılar.** Sorğuda iştirak edən 30 nəfərin 93.3%- i qadın, 6.7%-i isə kişidir. İştirak edənlərin çoxu (83.3%) Z nəslinin nümayəndəsidir (Cədvəl 1). Sorğuda iştirak edənlərin 16.7%-i 1981-1995, 83.3%-i isə 1996-2010-cu il təvəllüdlü respondentlərdir. 1965-1980 təvəllüdlü iştirakçı isə yoxdur.

| **Nəsil** | **Say** | **Faizlə** |
|---|---|---|
| ***X (1965-1980)*** | *0* | *0* |
| ***Y (1981-1995)*** | *5* | *16.7%* |
| ***Z (1996-2010)*** | *25* | *83.3%* |
| ***Cəmi*** | ***30*** | ***100%*** |

Cədvəl 1. Respondentlərin nəsillər üzrə iştirak faizi

Respondentlərin cins və 3 nəsil üzrə təhlil etdikdən sonra onların hansı ixtisaslar üzrə təhsil aldıqları və hal-hazırki fəaliyyətləri ilə bağlı suallar ünvanlanmışdır (Cədvəl 2).

| **Məşğulluq** | **Bitirilən ixtisas** | **Say** | **Faiz** |
|---|---|---|---|
| **İşləmir** | *Xarici dil müəllimliyi*<br>*Tarix müəllimliyi*<br>*Təlim və tədrisin təşkili və metodikası*<br>*Biologiya müəllimliyi*<br>*Riyaziyyat*<br>*Azərbaycan dili və ədəbiyyat müəllimliyi*<br>*Dizayn*<br>*Alman dili və ədəbiyyatı müəllimliyi*<br>*Neft-qaz mühəndisliyi*<br>*İqtisadiyyat*<br>*Kompüter elmləri*<br>*Məktəbəqədər təhsil*<br>*Tarix və coğrafiya müəllimliyi*<br>*İbtidai sinif müəllimliyi*<br>*Regionşünaslıq* | **19** | **63.3%** |
| **Fərqli ixtisas üzrə işləyir** | *Filologiya*<br>*Sosial iş*<br>*Musiqi*<br>*İngilis dili müəllimliyi*<br>*Turizm*<br>*İngilis dili müəllimliyi*<br>*İnsan Resursları*<br>*Azərbaycan dili və ədəbiyyatı müəllimliyi* | **10** | **33.3%** |
| **İxtisas üzrə işləyir** | *Məktəbəqədər təlim və tərbiyə* | **1** | **3.3%** |

Cədvəl 2. Respondentlərin bitirdiyi ixtisaslar və işlədikləri istiqamətlər

Cədvəldən göründüyü kimi, işləməyənlərin sayı daha çoxdur. Yalnız 1 nəfər ixtisasına uyğun özəl fəaliyyət göstərir. Cədvələ əsasən əmək fəaliyyəti göstərməyənlər 63.3%, ixtisası üzrə

işləməyənlər isə ümumi seçmənin 33.3%-ni təşkil edir. İxtisasdan kənar fəaliyyət göstərən, eləcə də işləməyənlərin əksəriyyətinin pedaqoji ixtisaslarda oxuduğunu müşahidə edirik: ***xarici dil müəllimliyi, filologiya, məktəbəqədər təhsil, ibtidai sinif müəllimliyi*** kimi ixtisaslar sorğuda iştirak edən respondentlərin ən çox işlətdiyi cavablardandır. Xüsusilə də, iştirakçılar arasında müəllimlik ixtisasının üstünlük təşkil etməsi narahat edən məsələlərdən biridir. Bu tapıntı öz növbəsində pedaqoji ixtisaslardan məzun olanların məşğulluğu ilə bağlı daha dərin tədqiqatların aparılması və səbəblərin araşdırılmasına əhəmiyyətli edir.

İxtisasından fərqli istiqamətlərdə özünə karyera quran respondentlər əsasən *gözəllik, moda sahəsi və insan resurslarında* müəyyən əmək fəaliyyəti ilə məşğul olurlar. Bu həmin iştirakçı qrupunun ümumilikdə 50%-ni təşkil edir və düşünürük ki, bu peşə vərdişləri və bacarıqları qısa müddət ərzində müəyyən resurs, təlimlər hesabına mənimsənilib.

Sorğunun keyfiyyət sualları kodlaşdırılaraq kateqoriyalar ətrafında şərh edilmişdir. Sorğuya əsasən ixtisasını dəyişən respondentlər valideynləri tərəfindən müxtəlif reaksiyalarla üzləşiblər. Belə ki, peşə seçimini dəyişənlərin bəzilərininn dəstəklə, bir qisminin isə neytral və aqressiv reaksiyalarla üzləşdiyini müşahidə edirik (Cədvəl 3).

| Kodlar | Say | Nümunələr |
|---|---|---|
| Empatiya | 11 | Mənim fikrimə hörmətlə yanaşdılar. |
| Neytral | 6 | Hələ ki, bu haqda söhbət yoxdur. |
| Neqativ təsəvvür | 1 | Dəyişməyə icazə verməzlər, fikrimcə. |
| Xoş olmadı | 6 | Hərdəmxəyal olduğumu fikirləşdilər, razılaşmırdılar. |
| Cəhd edilməyib | 4 | Bunu hələ ki, etməmişəm |
| Cavabsız | 2 | Bilmirəm |

Cədvəl 3. Valideynlərin övladlarının peşə dəyişməsinə münasibəti

Sevindirici haldır ki, valideynlərin əksəriyyəti (36.6%) övladlarının ixtisasını dəyişməsinə hörmətlə yanaşıb və dəstəkləyiblər. Bununla bərabər buna ciddi qarşı olanlar da var. Cədvəldə əks olunan cavablara əsasən deyə bilərik ki:

1) Valideyn-övlad ünsiyyətinin olmaması fikir, istəklərin ifadə edilməsində çətinliyi artırır;
2) Övladların maraq dairəsinə, bacarıqlarına göz yumulur və ya fikirləri ümumiyyətlə ciddiyə alınmır.

**Hipotez testi.** Araşdırmanın sorğu hissəsində 2 hipotez formalaşdırdıq ki, onları test edərək hansının doğru və yanlış olduğunu müəyyən edək:

- **$H_0$:** Valideyn təsiri ilə peşə seçənlərin 50%-dən çoxu karyeralarını həmin istiqamətdə davam etdirir.
- **$H_a$:** Valideyn təsiri ilə peşə seçənlərin 50%-dən çoxu ixtisası üzrə işləmir və ya ümumiyyətlə işləmir.

Alternativ hipotezimizi test etmək məqsədilə proporsiya üçün Z testi etməyə çalışdıq. Nəzərə alsaq ki, testimizi proporsiya üzrə aparırıq standart xətanı da proporsional dəyişənlərə asasən hesabladıq. Qeyd edək ki, testdə əsas götürülən xəta payı 5%-dir (Cədvəl 4).

| **Proporsiya üzrə Z testinin düsturu** | **$Z= (p_s-p_ə)/ \sqrt{(p(1-p)/n}$** |
|---|---|
| *Seçmə proporsiyası* | 0.3 |
| *Əhali proporsiyası* | 0.5 |
| *Xəta payı* | 5% |
| *Standart xəta* | 0.083666003 |
| *Z* | -2.390457219 |
| *Norm.dist* | 0.008413705<0.5 |

Cədvəl 4. Proporsiya üzrə Z testi:

$$z = \frac{\text{ps}-\text{pə}}{\frac{\sqrt{\text{p}(1-\text{p})}}{\text{n}}} \quad (1)$$

Alternativ hipotezimizi yoxlamaq məqsədilə aparılan testin nəticəsinin normal paylanma əmsalını taparaq xəta səviyyəsi ilə müqayisə edirik. Nəticəyə əsasən deyə bilərik ki test nəticəmiz xəta payından kiçik olduğu üçün sıfır hipotezimizi inkar edə bilirik. Aparılan tədqiqat valideyn təsiri ilə peşə seçənlərin böyük əksəriyyətinin həmin istiqamətdə işləmədiyini, hətta ixtisas dəyişdiyini sübut edə bilirik. Eləcə də, qarışıq metodlarla aparılmış sorğuda nəzərdən qaçan bir çox yeni məlumatlar əldə edilmişdir. Seçməmiz kiçik olduğundan bu istiqamətdə daha geniş kütləni əhatə edən araşdırmalar aparılmalı və peşə seçiminə təsir edən digər amillər üzə çıxarılmalıdır.

**NƏTICƏ**

Təhlil olunan mənbələr və tədqiqatlar sübut etdi ki, peşə seçiminə təsir edən amillərdən biri də valideyn təsiridir. Belə ki, bu təsirin valideyn münasibətindən asılı olaraq mənfi və müsbət nəticələri ola bilər. Valideynlərin bəzən övladlarını istəklərinə uyğun yönəltməsi onların gələcəklərinin sual altında qalmasına səbəb olur. Övladlar valideynlərinin arzularını yerinə yetirərək karyeralarında müvəffəqiyyətli ola bilmir və ya iş məmnuniyyətləri aşağı olur. Tədqiqatda da valideyn təzyiqinin neqativ nəticələrini araşdırılmış, valideyn təzyiqi ilə peşə seçənlərin bir mərhələdə seçimlərini dəyişdiyini və ya ümumiyyətlə əmək fəaliyyətində olmadığı üzə çıxarılmış və hipotez testi ilə təsdiqini tapmışdır. Tədqiqat nəticələri əsasında üzə çıxan tapıntılara əsasən bunları tövsiyə edə bilərik:

- Peşə seçimində valideyn təzyiqi ilə üzləşənlərin əksəriyyəti işləmir. Bu da seçim etmə istiqamətində uşaqlara empatiya, dəstək göstərməyi, onların fərdi maraqlarına bələd olmağı əhəmiyyətli edir.
- Valideynlər öz övladlarını tanımağa çalışmalı və əks-əlaqə qurmağı bacarmalıdırlar. Əks təqdirdə uşaqların maraqlarını, bacarıqlarını kəşf etmək qeyri-mümkündür.
- Məktəbin pedaqoji heyəti valideynlərlə də iş aparmalı və peşə seçimi ilə bağlı maarifləndirməlidir.

Tədqiqat ümumi olaraq valideyn təzyiqinin peşə seçimi və gələcək karyera üzərində ciddi təsiri olduğunu göstərir və valideynlərin övladlarının maraqlarını anlamağa və dəstəkləməyə daha çox fokuslanmalarını tövsiyə edir. Sorğu seçməsinin kiçik olmasını nəzərə alaraq gələcəkdə tədqiqat seçməsini genişlətmək və qarışıq metodlardan istifadə edərək tapıntıları dərinləşdirmək arzuolunandır.

**İSTINADLAR:**

1. Amani, J., & Mkumbo, K. A. (2018). The influence of family background on career choice among undergraduate students in Tanzania. Papers in Education and Development, (32).

2. Dietrich, J., & Kracke, B. (2009). Career-specific parental behaviors in adolescents' development. Journal of vocational behavior, 75(2), 109-119.

3. Kemboi, R. J. K., Kindiki, N., & Misigo, B. (2016). Relationship between personality types and career choices of undergraduate students: A case of Moi University, Kenya. Journal of education and practice, 7(3), 102-112.

4. Olaosebikan, O. I., & Olusakin, A. (2014). Effects of Parental Influence on Adolescents' Career Choice in Badagry Local Government Area of Lagos State, Nigeria.

5. https://www.joblisot.com/trends/the-impact-of-parental-influence-career-edition.

# KƏSRLƏRİN NÖVLƏRİ VƏ ONLAR ÜZƏRİNDƏ HESAB ƏMƏLLƏRİ

**Əzizova Səbinə Aqil qızı**
Bakı Slavyan Universiteti
İxtisas: İbtidai sinifdə tədrisin metodika və metodologiyası
E-mail: sabinaazizova443@gmail.com
Bakı, Azərbaycan
*Rəyçi: dos. X.T. Novruzova*

**Xülasə**

Riyaziyyat məktəbdə tədris olunan əsas fənlərdən biridir. Riyaziyyat digər fənlər kimi məktəblilərdə məntiqi təfəkkürün inkişafına kömək edir. Məktəblilərə öz fikirlərini, hərəkət ardıcıllığını aydın və dəqiq ifadə etməyi, məqsədlərinə çatmağı öyrədir. Riyaziyyat məktəblilərdə fəza təsəvvürü və şagirdlərin şüurunda əks olunması haqqında təsəvvür formalaşdırır.

İbtidai siniflərdə riyaziyyat proqramına uyğun olaraq III və IV siniflərdə kəsrlərin öyrənilməsinə hazırlıq aparılmalıdır. Bu o deməkdir ki, ibtidai siniflərdə kəsrlər və hissələr haqqında konkret təsəvvürlər yaratmaq lazımdır. Bu məqsədlə II sinifdə uşaqları kəsrlərlə, ədədin hissələri ilə tanış etmək, kəsrləri müqayisə etməyi öyrətmək,kəsri tapmağa dair məsələlərin həlli; III və IV siniflərdə kəsrləri və onların növlərini təqdim edir, kəsrləri müqayisə etməyi öyrədir, ədədin hissəsinin tapılmasına dair məsələlərin həllini öyrədir. Məqalədə yuxarıda göstərilən bütün suallar araşdırılmışdır.

***Açar sözlər:*** *riyaziyyat, hesab, ibtidai təhsil, kəsr, hissə*

**Giriş.** Adi kəsrlər üzərindəki əməllərin həyatda çox böyük əhəmiyyəti vardır. Şagirdlər bu əməlləri şüurlu olaraq mənimsədikdə bir çox hallarda kobud səhvlərə yol verirlər. Buna adi və onluq kəsrlər üzərindəki əməllərdə çox zaman təsadüf etmək olur. Belə nöqsanların başlıca səbəbini kəsr anlayışının düzgün verilməməsində, materialı keçərkən şagirdlərin yaş xüsusiyyətlərini nəzərə almamaqda, dərslərin əyani aparılmamasında, qayda və qanunları şagirdlərə şüurlu olaraq mənimsətməməkdə, keçilənləri vərdiş halına salmamaqda, müəllimin dərsə ətraflı hazırlanmaması və onu təşkil edə bilməməsində və s. axtarmaq lazım gəlir.

Riyaziyyat dərslərinin əsas məqsədi şagirdlərin idrak fəaliyyətinin təzahürü üçün şərait yaratmaqdır. Müəllimin vəzifələrinə dərsin strukturuna bu və ya digər texnika, metod, forma və istifadənin daxil edilməsi daxildir.

**Tədqiqat metodu**. Kəsrlər haqqında düzgün təsəvvür yaratmaq üçün kifayət qədər sayda müxtəlif əyani vasitələrdən istifadə etmək lazımdır. Təcrübə göstərdiyi kimi, ən əlverişli köməkçilər kağızdan kəsilmiş həndəsi fiqurlardır; kağız üzərində və ya şəffaflarda (dairələr, düzbucaqlılar, üçbucaqlar, çubuqlar, seqmentlər və s.) hazırlanmış fiqurların təsvirlərindən istifadə edə bilərsiniz.

**Əsas hissə.** Şagirdin məktəbdə qarşılaşdığı ilk riyazi anlayışlardan biri ədəd anlayışıdır. Bu anlayış riyaziyyatın əsas anlayışlarından biridir və onun mənimsənilməsi şagird üçün böyük əhəmiyyət kəsb edir. Şagirdlər adətən ibtidai siniflərdə kəsr ədədləri ilə tanış olurlar. Kəsr anlayışı daha sonra orta məktəbdə dəqiqləşdirilir və genişləndirilir. Bu baxımdan müəllim kəsr və rasional ədədlər anlayışını, rasional ədədlər üzərində əməllərin yerinə yetirilməsi qaydalarını düzgün mənimsətməlidir. Bütün bunlar təkcə kəsr anlayışını riyazi cəhətdən düzgün təqdim etmək və kiçik məktəblilərə onlarla əməliyyatlar aparmağı öyrətmək üçün deyil, həm də daha az vacib olmayan rasional və həqiqi ədədlər çoxluğu ilə natural ədədlər çoxluğu arasındakı əlaqələri görmək üçün lazımdır. Onların anlayışı olmadan məktəbin ibtidai və sonrakı siniflərində riyaziyyatın tədrisində davamlılıq problemini həll etmək mümkün deyil.



$\frac{1}{4} \rightarrow \frac{surət}{məxrəc}$ Şəkil 1.

***N*** natural ədədlər çoxluğunun genişlənməsi aşağıdakı ardıcıllıqla baş verəcək: əvvəlcə Q+müsbət rasional ədədlər çoxluğu qurulur, sonra onun R+müsbət həqiqi ədədlər çoxluğuna necə genişləndirilə biləcəyi göstərilir və, nəhayət, R+ çoxluğunun bütün həqiqi ədədlərin R çoxluğuna genişlənməsi çox qısa şəkildə təsvir olunan ədədlərdir.

Nümunə 1. Vahid ***e*** seqmentindən istifadə edərək ***x*** seqmentinin uzunluğunu ölçmək lazımdır.

I—I—I—I—I—I—I—I—I—I—I—I—I—I—I—I—I
***x***
I—I—I—I—I

***e***

Ölçmə zamanı məlum oldu ki, *x* vahidi *e*-yə bərabər üç vahiddən və *e* vahiddindən qısa olan seqmentdən ibarətdir. Bu halda x seqmentinin uzunluğunu natural ədəd kimi ifadə etmək olmaz. Bununla belə, e seqmenti dörd bərabər hissəyə bölünərsə, x seqmenti e seqmentinin dördüncü hissəsinə bərabər olan 14 seqmentdən ibarət olacaqdır. Və sonra, x seqmentinin uzunluğu haqqında danışarkən, iki 4 və 14 rəqəmini göstərməliyik: e seqmentinin dördüncü hissəsi seqmentə 14 dəfə uyğun gəlir. Buna görə də biz x seqmentinin uzunluğunu $\frac{14}{4}$ E şəklində yazaq, burada E vahid seqmentin uzunluğudur və $\frac{14}{4}$ simvolunu kəsr adlandıraq.

Ümumiyyətlə, kəsr anlayışı aşağıdakı kimi müəyyən edilir. Uzunluğu E olan x seqmenti və vahid e seqmenti verilsin. Əgər x seqmenti e seqmentinin n-ci hissəsinə bərabər olan m seqmentdən ibarətdirsə, onda x seqmentinin uzunluğunu m kimi göstərmək olar. $\frac{m}{n}$ * E, burada $\frac{m}{n}$ simvolu kəsr adlanır, burada m və n ədədləri natural ədədlərdir.




Şəkil 2.




Şəkil 3.




Şəkil 4.

"Kəsrlər" mövzusunu öyrənərkən şagirdlərin riyazi dünyagörüşünü genişləndirmək üçün terminlər: kəsr, surət və məxrəc, surəti birdən böyük olan kəsrlərin əmələ gəlməsi, oxunması, yazılması və müqayisəsi nəzərdə tutulur.

Kəsrlər haqqında anlayışı formalaşdırmaq üçün mətnli məsələlərin həlli yollarından istifadə olunur. Şagirdlərə verə biləcəyiniz ilk sual: "İki qardaş 6 almanı öz aralarında bərabər böldülər. Hər qardaş neçə alma aldı?"

Şagirdlər müstəqil olaraq məsələnin həllini yazır: (6:2=3) və onun sualına hesab əməliyyatının seçilməsini izah edərək cavab verirlər. Sonra aşağıdakı məsələ təklif olunur: "İki qardaş bir almanı öz aralarında bərabər böldülər. Hər qardaş neçə alma aldı?

Müəllim bir alma götürür və qardaşlar arasında bərabər bölünməsini xahiş edir. Bu halda nə etməli? Şagirdlər almanı iki bərabər hissəyə kəsməyi təklif edirlər. Müəllim bir alma kəsir, bərabər hissələrdən birini göstərir və soruşur: "Almanın bu hissəsinə (yarım) nə ad vermək olar?" Niyə (alma yarıya bölündü)? Yarısını (bir yarısını) fərqli şəkildə necə çağıracağını kim təxmin etdi? Sübut et. (alma iki bərabər hissəyə bölündü və hissələrdən biri götürüldü).

Müəllim almanın ikinci hissəsini göstərir və şagirdlərdən onun adını çəkməyi xahiş edir.

Problemdəki sualı xatırlayaq və ona cavab verək (hər bir qardaş yarım və ya bir alma aldı). Bir yarım kəsr ədəddir. – $\frac{1}{2}$ kimi yazılır. Problemin həllini yazaq. Lövhədə qeyd edilir: 1:2 = $\frac{1}{2}$

Daha sonra izah edilir ki, $\frac{1}{2}$ kəsri yazarkən xəttin altında görünən ədəd obyektin neçə bərabər hissəyə böldüyünü göstərir. Bu ədəd kəsrin məxrəci adlanır. Xəttin üstündəki rəqəm neçə belə hissənin alındığını göstərir. Bu ədəd kəsrin surəti adlanır. Sonra, həll etmək üçün bir problem təklif olunur: "Üç qardaş bir almanı öz aralarında bərabər böldülər. Hər qardaş neçə alma aldı? Şagirdlər müstəqil olaraq bu məsələnin həllini yazır, sualına cavab tərtib edir və üçdə bir kəsrinin surət və məxrəcinin mənasını tapırlar.

Uşaqlara aydın şəkildə kəsrləri müqayisə etməyi öyrətmək üçün özünə nəzarət elementləri olan bir təhsil tapşırığından istifadə edə bilərik:

Lövhədə müxtəlif yollarla bərabər hissələrə bölünmüş eyni kvadratları təsvir edən altı kart var. Kvadratlar aşağıdakı ardıcıllıqla düzülür:




Müəllim suallar verir: Hansı fiqurlar təsvir edilmişdir? Bütün bu kvadratların ortaq nələri var? Şagirdlərdən bu kvadratları qruplara bölmələrini və niyə belə etdiklərini izah etmələrini xahiş edir. Lövhədə bir illüstrasiya var:



Müəllim təklif edir:

Birinci kvadrat cütünə baxın və mənə deyin ki, hər kvadratın neçə hissəsi kölgəlidir? Birinci kvadratın $\frac{1}{2}$ hissəsini göstərin. Onu kəsrlə göstərin. Bu kəsrin məxrəci nə deməkdir? Bu kəsrin surəti nə deməkdir?.

Müəllim ½ = $\frac{1}{2}$ nin necə düzgün yazılmasını göstərir.

Orta məktəbdə adi və onluq kəsrlər mövzularından hansının əvvəl və hansının sonra öyrənilməsinin daha əlverişli olduğu haqqında müxtəlif fikir və mülahizələr vardır. Riyaziyyatşünas Ağayev Bəylər "Səkkizillik məktəbdə riyaziyyatın tədrisi metodikası" (1972) adlı dərsliyində onluq kəsrlərin əvvəl öyrənilməsinin tərəfdarlarının mülahizələrini irəli sürmüşdür:

1) Onluq kəsrlər mövzusu natural ədədlər mövzusunun bilavasitə davamıdır;

2) Onluq kəsrlər təcrübədə daha çox işlənir və onlar üzərində əməllər daha asandır;

3) Onluq kəsrlər adi kəsrlərin xüsusi halı və metrik ölçü sistemi ilə əlaqədar olduğundan daha asan öyrənilə bilər;

4) Onluq kəsrlərin əvvəlcə öyrənilməsi təqribi hesablamaların daha yaxşı mənimsənilməsinə imkan verir;

5) Onluq kəsrlərin qabağa salınması, sonradan adi kəsrlər mövzusunun öyrənilməsini xeyli asanlaşdırır və s. (Ağayev, 1972, səh. 133)

Buradan da belə nəticəyə gələ bilərik ki, onluq kəsrlər adi kəsrlərdən əvvəl verilmişdir.

Adi kəsrləri əvvəl öyrənməyin tərəfdarları aşağıdakı mülahizələrə əsaslanırlar:

1. Onluq kəsrlər adi kəsrlərin xüusi halıdır. Şagird əvvəl, ümumiyyətlə, kəsrin mənasınl başa düşməli, ancaq bundan sonra onluq kəsrlərin öyrənilməsinə keçməlidir;

2. Onluq kəsrlərin və onlar üzərindəki əməllərin sadə görünməsinin səbəbi, onların adi kəsrlərdən sonra öyrənilməsidir;

3. Adi kəsrlərin, cəbr kursunda keçilən eyni çevrilmələrin başa düşülməsində çox böyük əhəmiyyəti vardır;

4. Adi kəsrlərin onluq kəsrlərdən əvvəl öyrənilməsi məktəb təcrübəsində özünü tamamilə doğrultmuşdur və s. (Ağayev, 1972, səh. 133)

Uşaqları kəsrlərlə tanış etmək onlarda kəsr və hissələr haqqında konkret fikirlər formalaşdırmaq deməkdir, yəni uşaqlara hissələri praktik olaraq necə formalaşdırmağı öyrətməyin yollarını bilmək zəruri hal sayılır. III sinfin sonunda şagird ədəd anlayışını, ədədin strukturunu, ədədlər arasındakı münasibətləri, ədədin hissəsi anlayışını başa düşdüyünü nümayiş etdirir. IV sinfin sonunda isə şagird ədəd anlayışını, ədədin strukturunu, ədədlər arasındakı münasibətləri başa düşdüyünü nümayiş etdirir, sadə kəsrləri tanıyır və şərhlər verir. Məsələn, dairənin dörddə birini almaq üçün dairəni dörd bərabər hissəyə bölmək və belə bir hissəni götürmək lazımdır. Hissələr haqqında düzgün təsəvvür yaratmaq üçün kifayət qədər sayda müxtəlif əyani vasitələrdən istifadə etmək lazımdır. Təcrübə göstərdiyi kimi, ən əlverişli köməkçilər kağızdan kəsilmiş həndəsi fiqurlardır; Kağızda və ya şəffaflarda (dairə, düzbucaqlı, üçbucaq, çubuq, seqment və s.) hazırlanmış fiqurların təsvirlərindən istifadə edə bilərik.

Şagirdləri hissələrlə bu şəkildə tanış edə bilərik:

Hər bir şagirdə bir neçə eyni dairə və düzbucaqlı veririk. İki eyni dairə götürək. Onlardan birini iki bərabər hissəyə bölək (çevrənin necə əyiləcəyini və necə kəsiləcəyini göstərir). Bu, bütöv bir çevrədir və bu, yarım dairədir, başqa sözlə, dairənin ikinci bir hissəsidir. Bütün dairədə neçə ikinci hissə var? Onları göstərin. Bir kvadrat götürün. Bir kvadratın ikinci hissəsini və ya yarısını necə əldə etmək olar (onu iki bərabər hissəyə bölün və belə bir hissə götürün)? İcra edin.

Şagirdlər bunu müxtəlif yollarla edə bilərlər, məsələn: bir kvadratı çapraz olaraq kəsin və iki bərabər üçbucaq əldə edin və ya orta xətt boyunca kəsin, sonra iki düzbucaqlı alırsınız. Bəzi şagirdlər kvadratı iki bərabər hissəyə bölmək üçün başqa yollar təklif edə bilərlər. (Şəkil 5)



Şəkil 5.

Bir dairənin ikinci hissəsini necə əldə etmək olar (dairəni iki bərabər hissəyə bölün və belə bir hissəni götürün)? Kvadratın ikinci hissəsini necə əldə etdiniz? Dairənin ikinci bir hissəsi başqa nə adlanır? Kvadrat? (yarım–" -, -" -) bütün dairədə dairənin neçə yarısı var (2)?

Kəsrlər iki rəqəmdən istifadə edərək yazılır. Dairənin ikinci bir hissəsi, kvadrat aşağıdakı kimi göstərilir: 1/2. 2 rəqəmi bir dairənin, kvadratın və ya başqa bir rəqəmin (cismin) 2 bərabər hissəyə bölündüyünü, 1 rəqəmi isə belə bir hissənin alındığını göstərir.

Şagirdlər dairənin yarısına 1/2 yazır və bu yazıda hər rəqəmin nəyi göstərdiyini izah edirlər.

Hissələr də əmələ gəlir 1/4, 1/8, 1/3, 1/6, 1/5, 1/10 və s. Şagirdlər başa düşməlidirlər ki, məsələn seqmentin 1/5 hissəsi (düzbucaqlı, kağız zolaq və s.) bu seqmenti (düzbucaqlı , zolaq və s.) 5 bərabər hissəyə bölmək lazımdır və belə bir hissəni götürün ki, bu seqmentdə 5 var, ona görə də beşdə bir belə yazılır 1/5, bu qeyddə 5 rəqəmi seqmentin neçə bərabər hissəyə bölündüyünü və 1 sayının belə bir hissənin alındığını göstərir.

Hissələrin adlandırılması və yazılması üzrə misallara baxaq (şək. 6). Kvadratın (dairənin) hansı hissəsinin kəsildiyini (kölgələnmiş) adlandırın və yazın.



Şəkil 6.




Şəkil 7.

**Nəticə.** Riyaziyyat dərslərində idrak universal təlim metodlarının uğurlu formalaşdırılmasına töhfə verən formalar, metodlar, inkişaf vasitələri və texnologiyaları nəzərdən keçirilmişdir. "Onluq və adi kəsrlər" mövzusunu öyrənərkən riyaziyyat dərslərində idrak qabiliyyətlərinin səviyyəsini artırmaq üçün ibtidai sinif şagirdləri arasında idrak fəaliyyətini formalaşdırmaq üçün məqsədyönlü iş lazımdır. Beləliklə, müxtəlif müəllimlərin təcrübəsindən görürük ki, onların hər biri "Adi kəsrlər" mövzusunda dərslərdə şagirdlərin biliklərin mənimsənilməsinin keyfiyyətini yüksəltməyə çalışır. Və hər bir müəllim bu vəzifəyə şagirdlərə əlavə dərs yükü verməklə deyil, tədrisin forma və metodlarını təkmilləşdirməklə nail olub. Bunun sayəsində uşaqlarda idrak marağı və idrak fəaliyyəti aktiv şəkildə inkişaf edir.

**Ədəbiyyat**

**1.** Ağayev B. Səkkizillik məktəbdə riyaziyyatın tədrisi metodikası. Bakı: Maarif, 1972.
**2.** Ağayev B.Ə. Riyaziyyat tədrisi metodikası. Bakı, 1966
**3.** 4-cü sinifdə riyaziyyat (müəllimə kömək). "Maarif" nəşriyyatı. Bakı, 1974, 270 səh.
**4.** 4-cü sinifdə riyaziyyat. Bakı, 1978, 263 səh.
**5.** Hüseynzadə G., Məhərrəmov M və başqaları. Ümumi təhsil müəssisələrinin 4-cü sinifləri üçün riyaziyyat fənni üzrə dərslik. Şərq-Qərb" nəşriyyatı. Bakı, 2023
**6.** Qasımova X., Rüstəmova İ. və başqaları. Ümumi təhsil müəssisələrinin 3-cü sinifləri üçün riyaziyyat fənni üzrə dərslik. Şərq-Qərb" nəşriyyatı. Bakı, 2023
**7.** Muradov M. Riyaziyyatdan şagirdlərin biliyini artırmaq yolları. Bakı, 1967, 96 səh.
**8.** Mustafayeva F.F. Riyaziyyat təlimində qrafik təsvirlərdən istifadə. (I-IV) siniflər. Metodik vəsait. Bakı, 2019, 164 səh.
**9.** Nikitin N.N. İbtidai məktəbdə arifmetika məsələlərinin həlli. Bakı, 1941, 119 səh

**Abstract**

Mathematics is one of the main subjects of the school curriculum. Mathematics, like no other subjects, contributes to the development of logical and spatial thinking in schoolchildren. It teaches schoolchildren to think clearly and accurately express their thoughts, sequences of actions, and achieve their goals. Mathematics forms in schoolchildren an idea of the spatial world, its laws and reflection in the minds of students.

In accordance with the mathematics program in the primary grades, preparation should be carried out for the study of fractions in grades III and IV. This means: in the elementary grades it is necessary to create concrete ideas about fractions and fractions. For this purpose, it is planned in the second grade to familiarize children with fractions, their notation, teach them to compare fractions, solve problems on finding the fraction of a number and a number by fraction; in grades III and IV, introduce fractions and their notation, teach how to compare fractions, teach how to solve problems on finding fractions of a number. All the above questions are revealed on a visual basis in the article.

***Key words:*** *mathematics, calculation, primary education, fractions and parts*

**Аннотация**

Математика – один из основных предметов, преподаваемых в школе. Математика, как и другие предметы, способствует развитию логического мышления у школьников. Оно учит школьников ясно и точно выражать свои мысли, последовательность действий и достигать поставленных целей. Математика формирует у школьников представление о пространстве и в сознании учащихся представление о рефлексии.

Подготовку к изучению дробей следует проводить в III и IV классах в соответствии с программой по математике в начальных классах. Это значит, что: необходимо в начальных классах формировать конкретные представления о дробях и частях. С этой целью во II классе познакомить детей с дробями и их записью, научить сравнивать дроби, решать задачи, связанные с нахождением числа и дроби числа; В III и IV классах знакомит с дробями и их обозначениями, учит сравнивать дроби и решать задачи, связанные с нахождением части числа. В статье все вышеперечисленные вопросы были рассмотрены на наглядной основе.

***Ключевые слова:*** *математика, арифметика, Начальная школа, дроби, части*

# TƏLƏBƏLƏRIN KOQNITIV GÖSTƏRICILƏRININ HƏYƏCAN SƏVIYYƏSINDƏN ASILILIĞI

**GÜLSÜM ƏFƏNDIYEVA**
Qərbi Kaspi Universiyeti
Psixologiya Fakultəsi
*gulsum.efendiyeva2005@gmail.com*
Bakı, Azərbaycan
Elmi rəhbər: **B.ü.f.d. Kərəmova N.Y.**

**XÜLASƏ**

Hər bir şəxs uğurlu gələcəyi üçün təlimlər alır və biliklərini təkmilləşdirmək üçün də imtahanlardan keçir. Hər bir hadisədə olduğu kimi imtahan prosesləri də stressə səbəb olan faktorlardan biri kimi çıxış edə bilər . İmtahan stessi haqqında bir çox tədqiqatlar və müxtəlif yanaşmalar mövcutdur ki, bu da imtahan stressinin mənfi və müsbət xüsusiyyətlərinin araşdırılması ilə nəticələnib. İmtahan stressi fərdlərin koqnitiv funksiyalarına, fizioloji göstəricilərinə, yaddaş proseslərinə, həyəcan göstəricilərinə, imtahanda əldə edilən nəticəyə, akademik uğur göstəricilərinə və s. təsir edir. Təqdim etdiyimiz məqalə Qərbi Kaspi Universitetinin " Science Group" gənc tədqiatçılarının iştirakı ilə aparılmış tədqiatların bir hissəsini təşkil edir. Tədqiqatımızın əsas məqsədi həyəcan göstəricilərinin koqnitiv göstəricilərə təsirini araşdırmaq olmuşdur. Tədqiqatımızda müxtəlif kurslarda oxuyan 17-21 yaşlı tələbələr iştirak etmişdir. Nəzərə alsaq ki, bu yaş dövründə tələbələr yetkinlik dövründə olduqları üçün həyəcan təsirlərinə qarşı reaksiyaları da inkişaf səviyyəsindən asılı olaraq dəyişəcək. Tədqiqatımızı aparmaqdakı əsas stimullardan biri zaman keçdikcə stress və həyəcan

səviyyələrinin nə dərəcədə koqnitiv funksiyalara təsir etdiyini araşdırmaqdır. Optimal həyəcan səviyyəsində orqanizmamızda baş verən somatik dəyişikliklər bizim koqnitiv funksiyalarımızın (diqqət, yaddaş, yadasalma prosesi və s. ), məhsuldarlığımızın artmağına müsbət təsir edir lakin bir nöqtəyə qədər. Stress çox və xroniki şəkildə olduqda bu tərs reaksiyaya səbəb olar. Həyəcan səviyyəsi çox yüksək olduqda, optimal səviyyəni keçdikdə əks proses koqnitiv funksiyalarda da enişlə müşahidə olunur.

**AÇAR SÖZLƏR: imtahan stressi, optimal həyəcan səviyyəsi, fərdi həyəcan, situativ həyəcan, qısa müddətli yaddaş, diqqət.**

## GIRIŞ

Amerika Psixologiya Assosasiyası psixologiya lüğətlərində həyəcana həvəs, gözləmə, ümumi oyanma ilə qeyd olunan emosional vəziyyət kimi tərif verir. Həyəcan müəyyən əlamətlərə malik olan ruh halıdır. Həyəcanın fizioloji və nevroloji xüsusiyyətlərinə nəzər saldıqda işlər daha maraqlı olur. Fizioloji baxımdan qorxu və həyəcan bəzən bir-birindən fərqlənmir. Həyəcanın bəzi fizioloji göstəriciləri sürətli ürək döyüntüsü, gərgin əzələlər, göz bəbəyinin genişlənməsi və s. yüksək narahatlıq və qorxu hissi ilə demək olar ki, eynidir. Beyində də bu zaman maraqlı fəaliyyət göstərir. Həyəcanlandığımız zaman beynin digər hissələrinə nisbətən daha yüksək aktivləşmə göstərən bəzi sahələri var. Yəni beynin beş hissəsi var ki, biz həyəcanlandığımız zaman yüksək elektrik aktivliyi göstərirlər. Pre-Central Gyri, Post-Central Gyri, Precuneus, Inferior Frontal Gyrus, Middle Frontal Gyrus. (Turrell, Halpern & Javadi 2019).

Həyəcan vəziyyətdən asılı olaraq orqanizmin cavab reaksiyasıdır. Ədəbiyyatdan məlumdur ki, beyində fəaliyyətə başlamazdan əvvəl və hadisə baş verdikdən sonra aktivləşməni göstərən xüsusi bölgələr var. Həyəcan zamanı araşdırma üçün yalnız piramidal neyronlar nəzərdə tutulur. Piramidal neyronlar beynin ən xarici təbəqəsində, yəni beyin qabığında olan neyronlardır. Beynimizin daha dərin qatlarında yerləşən və həyəcan anında iştirak edən başqa sahələridə mövcutdur. Həyəcanlı oluğu zaman ürək döyünməsinin bir səbəbi də daxili sekresiya vəzilərinin qan dövranına hormonlar ifraz etməsidir. Həyəcan zamanı alınan ilk reaksiya sinir sisteminin adrenalin, noradrenalin, və kortizon kimi hormonların ifrazını qıcıqlandırması ilə başlayır. Bu stressə hazırlıq vəziyyəti kimi də qiymətləndirilə bilər (Kərəmova N.Y.,2010). Artıq orqanizm bu reaksiya ilə birlikdə ola biləcək hər təhlükəyə hazır hala gəlir. Məsələn, göz bəbəklərinin genişləməsi, tüklərin dikləşməsi və s. . Tənəffüs sistemi bu hadisədən dərhal qıcıqlanır, daha dərin və tez nəfəs alma ilə reaksiya verir. Oksigen qazı ilə zəngin olan hava ağciyərlərdəki alveollar vasitəsi ilə qana keçir. Ürək döyüntülərinin sürəti və qan təzyiqi artır.Əgər həyəcan xroniki hala gələrsə bu vəziyyət qan damarlarına zərər verir. Bu da hipertoniya, ürək tutması, ya da iflic kimi xəstəliklərin riskini artırır. İfraz olunan adrenalin nəticəsində orqanizmdə əzələ gərginliyi müşahidə olunur. Daimi baş verən bu əzələ gərginlikləri fiziki ağrılara səbəb olur. Bu ağrılar çiyinlərdə, boyunda və ya başda meydana gəlirsə baş ağrılarına və miqrenə səbəb ola bilər. Həyəcan vəziyyəti endokrin sisteminə də təsir edir. Beyinin endokrin sistemi ilə ümumi sinir sistemimi əlaqələndirən əsas nahiyə hypotalamusdur. Hypotalamusdan gələn həyəcan implusları adrenalin və kortizon hormonlarının ifrazına təsir edir (Vivian, N.G., Koh, D., and Chia, S.E. 2003). Amigadala zaman-zaman beyinə təsir edərək həyəcanın yaranmasına səbəb olur. Bu təcrübədə yaddaşın irəliləməsinə təsiri göstərir. Orta dərəcəli həyəcan məqamlarında ifraz olunan bu kortikosteroindlər hipokampus bölgəsinə təsir edirlər. Bu formada həyəcan faydalı ola bilər. Lakin stress çox və xroniki şəkildə olduqda bu tərs reaksiyaya səbəb olar. Siçanlar üzərində aparılmış bir təçrübədə iynə ilə yeridilmiş kortikosteroid hormonu artdıqca bir nöqtəyə qədər yaddaşın genişlədiyi lakin bir müddət sonra stress hormonunun artması ilə əlaqədar yaddaşda ciddi eniş müşahidə olunub (M.Joels, H.Karst, R.A. Sarabdjitsingh, 2018).

Həyəcan və ya stesin orqanizm tərəfindən aradan qaldırılması və lazım olan enerjinin əmələ gəlməsi üçün qaraciyər tərəfindən qanda şəkər, yəni qlukoza mübadiləsi sürətlənir. Bir çox insanda həyəcan azaldıqdan sonra ifraz olunan şəkər adsorbsiya olunur. Lakin bəzi insanlarda bu proses diabet riskini artmasına səbəb olur. Həyəcan vəziyyəti insanin imum sistemində də bir sıra xəstəlikləri yarada bilər (Glaser, R., Rice, J., Sheridan, J., et al. 1987). Stressin bir nəticəsi olaraq orqanizmdə ifraz olunan kortizon hormonu immun sistemini ləngidərək xəstəliklərlə mübarizə gücünü zəiflədir. Həyəcanın həzm sistemi üzərində də təsiri mövcuddur. Ən əsasıda qida vərdişlərinin dəyişərək az və ya çox qida qəbulu formasında dəyişir. Sağlam olmayan qidaların tərkibində vitaminlərin az olmasi ilə

əlaqədar bağırsaqda baş verən sorulma prosesi yaxşı həyata keçmir və bu da qarın ağrısı, bulantı, ishal və ya qəbzlik kimi problemlərə səbəb ola bilir. Həyəcan cinsiyyət sistemində də bir çox problemlərə yol açır. Xronik həyəcan kişilərdə testesteron hormonunun ifrazı və sperm əmələ gəlməsinə təsir edə bilər. Eynin zamanda erksiya pozğunluğuna və ya cinsi zəifliyə gətirib çıxara bilər. Qadınlarda isə menisturasiya tsiklinin dəyişməsinə və prememenistural semptomların ( əsəbilik, yorğunluq, qərarsızlıq və s. ) artmasına səbəb olur. Həyəcan halında olan zaman ruhi vəziyyətimizdə də dəyişikliklər yarana bilər, daha yorğun və normaldan daha çox əsəbilik formalaşar. Həyəcanın orqanizmə yüksək təsiri yuxuya getməkdə çətinlik və narahat gecələr keçirməyimizə səbəb ola bilər. Buda zaman keçdikcə koqnitiv fuksiyalarda bir işə yönəlmə, diqqət, yaddaş, öyrənmə qabiliyyətlərinə və s. mənfi təsir edə bilər (Vivian, N.G., Koh, D., Chia, S.E., 2003). Əsəb, qayğı, kədər, unutqanlıq, yuxusuzluq, depressiya, alkoqol və narkotik vərdişləri, konsentrasiya və insanlarla uyğunlaşmada pozğuntuları kimi narahatlıqlar stresin səbəb olduğu psixolojik və psixiatrik pozğunluqlardır. İnsan özü stresin ilkin mərhələlərində mübarizə aparmağı öyrənməlidir. Lakin bunu edilə bilinmədiyi halda bu vəziyyət biraz daha irəli gedib xroniki hal almamlışdan qabaq bu situasiyanı qəbullanıb bir terapevtə müraciət etmək lazımdır.

Bundan əlavə, beyinin uzun müddət BETA dalğaları vəziyyətində qalması stress, yorğunluq ,hətta depressiyaya belə səbə ola bilər. Təhlükə anı keçtikdən sonra beyin bir alt səviyyədə olan ALFA dalğalarına kecid edə bilər (Dr. Sezer Ş. Komsuoğlu, Dr. Hamit M.Selekler, Dr. Murad Alemdar 2008).

Yerkes-Dodson qanunu fərdin məhsuldarlığı və həyəcanı arasında birbaşa əlaqəni təklif edir. Bu qanuna görə, yüksək səviyyədə oyanma fərdin fəaliyyətini müəyyən nöqtəyə qədər təkmilləşdirə bilər. Yerkes-Dodson Qanunu iddia edir ki, məhsuldarlıq və həyəcan arasında birbaşa əlaqə var. Psixoloqlar Robert M. Yerkes və John Dillingham Dodson bu qanunu 1908ci ildə inkişaf etdirdilər. Yerkes-Dodson Qanununda deyilir ki, məhsuldarlıq fizioloji və ya zehni oyanma ilə artır, ancaq müəyyən bir nöqtəyə qədər. Həyəcan səviyyəsi çox yüksək olduqda, performans azalır. Bu qanuna görə, həyəcanı və performansı artırmağın ən yaxşı yolu ayıq qalmağımıza imkan verən tapşırıqlar üzərində işləməkdir (Şəkil 1). Yerkes və Dodson öz təcrübələrində elektrik şokunun siçovulları labirintdən bir ucdan digərinə keçməyə sövq edə biləcəyini kəşf etdilər. Lakin, şok həddindən artıq həddə çatdıqda, onların performans səviyyələri azaldı və onlar sadəcə qaçmağa çalışdılar. Təcrübə sübut edir ki, onların oyanma səviyyəsi onlara diqqəti cari vəzifəyə yönəltməyə kömək edir, ancaq müəyyən bir nöqtəyə qədər (Robert M. Yerkes , John Dillingham Dodson, 1908).




**Şəkil 1.** Yerkes-Dodson qanunu (Yerkes and Dodson, 1908).

Bəzi tədqiqatlardada imtahan həyəcanının təcrübədən asılı olaraq intensivliyinin dəyişdiyi göstərilir. İlk imtahan zamanı olan həyəcan səviyyəsi uzun müddətli təcrübələrdən sonra tədricən azala bilər. Zadar Universitetində aparılmış bir araşdırmada psixologiya tələbələrinin eyni rübdə verdikləri imtahanlarda stress səviyyələrində böyük bir dəyişiklik olmayıb. Lakın nəzərə alınsa ki, bir rübdə imtahanlar arası müddət qısadır bu nəticə tam da doğru hesab olunmaz (Zadar, Croatia Received June 20, 2011) . O səbəbdən bu hadisə uzun müddətli bir araşdırmada tədqiq olunur . Carreras, P. və Fernandez Castro birinci və ikinci kurs universitet tələbələrində imtahan stressinə uyğunlaşma

üzərində tədqiqat aparır. Nəticədə birinci kurs tələbələrinin həyəcan səviyyələri ikinci kurs tələbələrinin həyəcan səviyyələrinə nisbətdə yüksək çıxır (Carreras, P. and Fernandez Castro, J. 1998).

Eyni zamanda imtahan həyəcanı qavrayış proseslərinədə təsir edir. Kalifoniya universitetində aparılmış bir tədqiqatda bakalavr tələbələri və hüquq tələbələrinin vəkillik imtahan nəticələrini gözləyərkən stresslərinin zaman qavrayışına olan təsiri araşdırılıb. Tələbələr 3 qrupa ayrılıb və hər qrupda imtahanların nəticələrinin elan olunması fərqli zamanlarda olub. I qrup 5 gün, II qrup 4 ay , III qrup 1 il gozləmə müddəti verilib (Kyla Rankin Kate Sweeny Sandra Xu University of California p 9-20) . Nəticə etibari ilə tələbələr zamanın gec keçdiyini yəni zaman qavrayışının uzandığını və uzun müddətli bu hallarında yuxusuzluğa, hallisunasiyalara səbəb olduğu göstərilib .Həmcinin uzun müddətli gözləmə dövründə olan tələbələrə xaricdən imtahanla bağlı sual verildikdə və ya imtahanla əlaqəli danışıldıqda həyəcan səviyyəsinin yüksəldiyi müşahidə olunub.Bütün tədqiqatlarda sübut olunurki istənilən stress növü diqqəti cari vəziyyətlərə yönəlməyə kömək edir, lakin müəyyən nöqtəyə qədər ( Robert Hoskin Final submission: May 2014).

Mürəkkəb bir zehni proses olan yaddaşa müsbət və ya mənfi təsir edən fərqli faktorlar mövcutdur. Həyəcanda bunlardan biridir. Psixologiyadada qəmqinlik, sevinc, qəzəb, qayğı, qorxu və s. kimidə həyəcanlar mövcutdur. Həyəcan yaddaşımıza müxtəlif formada təsir edə bilər. Həyəcan halı yadasalma prosesinə böyük təsir göstərir. Məsələn bizi həyəcanlandıran bir hadisə yaddaşımızda daha dərin iz qoyur nəyinki emosional dəyəri aşağı olan bir hadisə. Həyəcanın yaddaşa olan bir digər təsiridə pozucu nəticəsinin olmasıdır. Bəzən qorxu, qayğı, qəzəb kimi həyəcanların xatırlanması bizim diqqətimizin mərkəzləşməsinə mənfi təsir edə bilər. Bu durumu çoxunluqla tələbəlr imtahanlarda yaşayır. İmtahandan əvvəl hiss edilən və ya imtahan ərafəsində yaranan yüksək qayğı diqqəti pozaraq oxunanı anlamağı və yaddaşdakı məlumatları xatırlamağı çətinləşdirir. Mənfi emosional dəyəri olan hadisələrdən əlavə müsbət dəyərləndirdiyimiz ehtirs, sevinc, xoşbəxtlikdə yadasalma prosesinə pozucu təsir göstərə bilər. Həyəcanın yaddaş üzərində yaratdığı başqa bir təəssüratda " kontekst"lə əlaqəlidir. Kontekst dedikdə hadisənin baş veriyi andakı mühiti, zamanı və emosiyaları kimi xüsusiyyətlər nəzərdə tutulur. Bir hadisəni yaşandığı zaman hiss edilən situativ həyəcan, həmin hadisəni yadasaldıqda daha ətraflı təsəvvür etməyimizə imkan verir. Məsələn kədrli mühitdə öyrəndiyimiz məlumat kədərli mühitdə yada düşür. Eyniylə sevincli və xoşbəxt bir vəziyyətdə olduğumuz zaman öyrənilən məlumat və ya baş verən hadisə oxşar duyğulara sahib olduğumuz zaman daha asan xatırlanır. Kontekstin təsirini yalnız həyəcanla məhdudlaşdıra bilmərik. Xatırlamaq istədiyimiz bir şeyi öyrəndiyimiz və ya yaşadığımız zaman digər amillərdə xatırlamağa təsir edir. Günün hansı saatında və hansı mühitdə oxuduğumuzdan asılı olmayaraq eyni mövzuları o zaman və oxşar mühitdə daha asan xatırlayırıq. Məsələn səhər, sakit bir mühitdə öyrəndiklərimizi xatırlamaq daha asandır. Həyəcanın yadasalmaya bir təsiridə "bağlanmaq (asıllıq)" anlayışı ilə ifadə edilir. Repressiv düşüncələr, impulsların, xatirələrin və s.-in yadasalınması və şüurlu səviyyədə qavranılması, güclü narahatlıq və ya günahkarlıq kimi mənfi emosiyalar yarada bilməsidir (Boström, Patrik University of Skövde 2018).

Tədqiqat qrupu olaraq imtahan zamanı emosional gərginlik halının koqnitiv funksiyalara olan təsirini araşdırmaqda bir neçə səbəbimiz var idi: məsələn, həyəcan halına olan psixoloji maraq. Çünki həyəcan insan təcrübəsində mühüm rol oynayan mürəkkəb duyğudur və bizi maraqlandıran ən əsas məqamlarda həyəcanın necə yarandığı, ifadə edildiyi və tənzimləndiyini, habelə onun davranış və rifaha təsirini anlamaqda əsas məqsədlərimizdən idi. Həyəcanın beyindəki motivasiya və mükafatlandırma sistemləri ilə rabitəsini aşkarlamaq idi. Həyəcanın tədqiqi beynin mükafatlandırıcı stimullara necə reaksiya verdiyi və bunun davranışa, qərar qəbul etmə prosesinə necə təsir etdiyini anlamağa kömək edə bilər. Həyəcan halının emosional tənzim mexanizmini öyrənmək idi. Həyəcanın dərk edilməsinin emosiyaların tənzimlənmə strategiyaları və fərdlərin sıx müsbət emosiyaları necə idarə etmələri haqqında fikirlər verə bilir. Həyəcanın sosial qarşılıqlı əlaqə mexanizmini öyrənməkdir. Həyəcan çox vaxt sosial kontekslərdə, məsələn yığıncaqlarda və ya qrup fəaliyyətləri zamanı yaşanır. Həyəcanın öyrənilməsidə bizə onun sosial əlaqə və ünsiyyətdəki rolunu anlamağada kömək edir. Ümumilikdə, həyəcanla bağlı araşdırmamızda insan emosiyasını, davranışını və rifahını anlamaq bizim üçün olduqca vacibdir və onunda psixologiya, nevrologiya, sosiologiya və s. kimi sahələrə təsiri var.

## TƏDQIQAT METODU

Koqnitiv göstəricilərin həyəcan səviyyəsindən asıllığını tədqiq etmək üçün ilk olaraq Spilberqer-Xanin hazırladığı situativ və fərdi həyəcan testlərindən istifadə etmişik. Yüksək həyəcan səviyyəsi psixosomatik xəstəliklərlə, aşağı həyəcan səviyyəsidə depressiv vəziyyət və aşağı motivasiya səviyyəsinə gətirib çıxarır. Həyəcan şkalası Ch.D.Spilberger və Yu.L.Xanın tərəfindən təkmilləşdirilib. Şkalanın rusdilli versiyası reaktiv və şəxsi narahatçılıq şkalası kimi tanınan STAI-də (1976, 1978) geniş yayılmışdır. Yu.L.Xanda bu texnikanı uyğunlaşdırıb standartlaşdırdı. Testdə situativ (reaktiv) həyəcan və şəxsi həyəcan nəticəsində narahatlıq müəyyən edilir və bunun nəticəsindədə koqnitiv funksiyalara təsirdə öyrənilir.

Situativ həyəcan hər bir insana xasdır və müəyyən bir mühitdə yaşanan duyğularla xarakterizə olunur: gərginlik, narahatlıq, əsəbilik və s. Belə duyğular mövcut vəziyyətdə emosional reaksiya kimi yaranır, intensizvliyi ilə fərqlənir və zamanla dəyişə bilir. Fərdi həyəcan isə daimi bir dəyərdir və insanın temperamentindən, xarakterindən, tərbiyyəsindən və xarici amillərə cavab vermək üçün müəyyən strategiyalar tətbiq etmək bacarığı ilə müəyyən edilir.

Test iki sual blokundan ibarətdir. Birinci blokda 20 sual hazırda hiss edilən asılı olaraq cavablandırılır. İkinci blokdakı 20 sualda isə adətən necə hiss edildiyindən asılı olaraq cavab seçilir.Situativ həyəcan (SH) göstəriciləri $\sum 1 - \sum 2 + 50$ formulu ilə hesablanırlar. $\sum 1$– şkalanın 3, 4, 6, 7, 9, 12, 13, 14, 17, 18-ci bəndlərinin cəmidir. $\sum 2$ – isə bütün qalan rəqəmlərin (1, 2, 5, 8, 10, 15, 16, 19, 20-ci bəndlər üzrə) cəmidir. Fərdi həyəcan (FH) göstəriciləri isə $\sum 1 - \sum 2 + 35$ formulu ilə hesablanır. $\sum 1$– şkalanın 22, 23 24, 25, 28, 29, 31, 32, 34, 35, 37, 38, 40-cı bəndlərinin cəmi, $\sum 2$ – isə 21, 26, 27, 30, 33, 36, 39-cu bəndlər üzrə qalan rəqəmlərin cəmidir. İnterpretasiya zamanı nəticəni belə qiymətləndirilməlidir: 30-a qədər - aşağı həyəcanlılıq, 31-45 – orta həyəcanlılıq, 46 və ondan çox isə yüksək həyəcanlılıqdır. Orta həyəcanlılıq səviyyəsindən xeyli kənara çıxma, yüksək həyəcanlılıq insanın mütəxəssis kimi qiymətləndirilməsi situasuyalarında onun güclü həyəcan vəziyyətinə düşməyə meylli olmasını göstərir. Bu halda situasiyanın və məsələlərin subyektiv qiymətini aşağı salmaq və diqqəti fəaliyyətin dərindən düşünülməsinə və uğura inam hissinin formalaşmasına vermək lazımdır.

Test ümumilikdə 16 yaşdan yuxarı şəxslər üzərində tədqiq edilir. Bizim tədqiq etdiyimiz kurslardakı şəxslərdə 17-21 yaş aralığına daxildir. Tədqiqatımız Qərbi Kaspi Universitetində təhsil alan I, II, III, IV kurs tələbələri üzərində aparılıb. Hər kursda ortalama 25 nəfər üzərində test tətbiq olunub. Tədqiqatlar imtahanın həyəcana təsiri öyrənmək üçün imtahan sesiyyasından əvvəl, adi dərs günlərindən birində keçirilib.Bütün tələbələr eyni şəraitdə testləşdirmə prosesinə cəlb edilib.

Tədqiqatların nətıcələrinin statistik işlənməsi zamanı məlum olmuşdur ki, I kurs üzrə təhsil alan tələbələrin situativ həyəcan səviyyələri 34,75 bal , fərdi həyəcan göstəricisi 38.7 bal; II kurs üzrə təhsil alan tələbələrin situativ həyəcan səviyyələri 42.25 bal, fərdi həyəcan göstəricisi 44.3 bal; III kurs üzrə təhsil alan tələbələrin situativ həyəcan səviyyələri 40.35 bal, fərdi həyəcanı 42.1 bal; IV kurs üzrə təhsil alan tələbələrin isə situativ həyəcan səviyyələri 41.82 bal və fərdi həyəcanı 46.3 bal olmuşdur. (**Şəkil 2**).




**Şəkil 2.** I, II, III və IV kurslarda təhsil alan tələbələrin fərdi və situativ həyəcan göstəriciləri.

Həyəcanın koqnitiv funksiyalar üzərindəki təsirini öyrənmək üçündə qısa müddətli yaddaşı tədqiqi edən " Ədədə görə yaddaş testi" -dən istifadə etdik. Bu test vasitəsi ilə qısamüddətli vizual yaddaşı, onun həcmini və dəqiqiliyini qiymətləndirmək mümkündür. Yadda saxlanması lazım olan 12 rəqəmdən ibarət cədvəl hazırlanır. Hazırlanmış cədvəl 20 saniyə ərzində göstərilir və sonradan cədvəl götürülür. Tədqiq olunan şəxs xatırladığı bütün rəqəmləri yazmalıdır. Qısa müddətli vizual yaddaş düzgün qeyd edilən rəqəmlərin sayı ilə qiymətləndirilir. Yetkin şəxslər üçün norma hüdudu 7 ±2 bal sayılır. Nətəcədə qısa müddətli yaddaş I kurs üzrə təhsil alan tələbələrdə 8.02 bal, II kurs üzrə təhsil alan tələbələrdə 8.25 bal , III kurs üzrə təhsil alan tələbələrdə 8.95 bal, IV kurs üzrə təhsil alan tələbələrdə 8.07 bal göstərilir (Şəkil 3).




**Şəkil 3.** I, II, III və IV kurslarda təhsil alan tələbələrin qısa müddətli yaddaşın göstəriciləri.

**NƏTICƏ**

Ümumilikdə, aparlan tədqiqatların əldə edilən nəticələrində yaş artdıqca situativ və fərdi həyəcanda yüksəlmə müşahidə olunur. Tədqiqatımızın imtahandan əvvəli adi dərs günülərində aparıldığını və tələbələrin imtahan hazırlığı mərhələsində olduğunu nəzərə alsaq bu optimal həyəcan səviyyəsi sayıla bilər. Optimal həyəcan səviyyəsində orqanizmdə baş verən somatik dəyişikliklər koqnitiv funksiyaların (diqqət, yaddaş, yadasalma prosesi və s. ) məhsuldarlığının artmağına müsbət təsir edir. Optimal həyəcan səviyyəsindən yuxarı həyəcan səviyyəsi isə, əksinə məhsuldarlığın və koqnitiv funksiyarda daha da zəifləməyə səbəb olcaq. Yerkes-Dodson qanununda da deyilir ki, həyəcan koqnitiv proseslərin məhsuldarlığına səbəb olur , ancaqhəyəcanın müəyyən səviyyəsinə qədər və bu səviyyə hər birinsan üçün optimal həyəcan səviyyəsi sayılır. Həyəcan səviyyəsi çox yüksək olduqda, optimal səviyyəni keçdikdə əks proses koqnitiv funksiyalarda eniş müşahidə olunur.

Beləliklə, tədqiq olunan tələbələrdə optimal həyəcan səviyyəsinin koqntiv prosesləri aktivləşdirdiyini müşahidə etdik. Qısa müddətli yaddaş göstəricisinin normadan yüksək olması və orta həyəcan səviyyəsi tədqiq olunan tələbələrin praktiki sağlam olmasını, beyinin funksional aktivliyini və lazım olan anda koqnitiv proseslərin aktivləşməsinə imkanı olduğunu qübut etdi. Ümumilikdə, koqnitiv proseslərin həyəcan prosesləri ilə əlaqəli olması qeyd olundu.

**ƏDƏBIYYAT SIYAHISI**

6. Kərəmova N.Y. Stress və onun koqnitiv proseslərlə qarşılıqlı əlaqələrinin tədqiqi problemi. Gənc alimlərin əsərləri, Bakı, №7, 2013, səh.221-228.

7. Искакова У.Б., Абишева З.С., Журунова М.С., Жетписбаева Г.Д., Исмагулова Т.М. Ситуативная тревожность и психо-эмоциональное состояние студентов во время рубежного контроля // Международный журнал прикладных и фундаментальных исследований. – 2016. – № 11-5. – С. 900-902;

8. Proceedings of the I International Scientific and Practical Conference 27-28 February 2024 Madrid.Spain 2024 p 117-118.

9. Vivian, N.G., Koh, D., and Chia, S.E., Examination Stress, Salivary Cortisol, and Academic Performance, Psychol. Rep., 2003, vol. 93, p. 1133.

10.Yerkes RM, Dodson JD. The relation of strength of stimulus to rapidity of habit-formation. J.Comp.Neurol.Psychol. 1908;18:459–482.

# İNFORMASİYA KOMMUNİKASİYA TEXNOLOGİYALARININ TƏHSİLDƏ ROLU

**İ.F.D., DOS. SEVDA MƏMMƏDCƏFƏR QIZI HACIZADƏ**
**VƏ MAGİSTRANT XƏDİCƏ E.QƏDİROVA**
Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC), Murtuza Muxtarov, 194,
Bakı, Yasamal, AZ1065
BMDM, Kompüter elmləri, İnformasiya sistemləri, Qrup-560
E-mail: s.hajizade@unec.edu.az
http://orcid.org/0000-0001-7191-2718
E-mail: khadijagadirova1@gmail.com
BAKI, AZƏRBAYCAN

**XÜLASƏ**

Azərbaycanda təhsil sahəsində və informasiya sistemlərinin tərəqqi məsələsində əsaslı irəliləyişlər yaşanır. Təhsil sahəsində, təhsil müəssisələrinin və elektron təhsil platformalarının inkişafı, tələbələrin daha fəal iştirakına imkan verir. Flipp Education kimi innovativ təhsil modelləri tələbələrin öz öyrənmə proseslərinə aktiv şəkildə qatılmasını təmin edir. Bu, motivasiyanın artmasına və öyrənmənin daha effektiv olmasına səbəb olur. İnformasiya sistemləri sahəsində isə, Azərbaycanın regional lider kimi fəaliyyət göstərmək üçün böyük potensiala malik olduğu qeyd olunur. Texnologiyaların inkişafı, müxtəlif sahələrdə yeni imkanların yaranmasına və iqtisadi artımın sürətləndirilməsinə kömək edir. Həm də, rəqəmsal savadlılığın və bacarıqların inkişafına təşviqi, işçi qüvvəsinin gücləndirilməsinə və rəqəmsal inqilabın tam faydalarından istifadə etməyə imkan verir. Azərbaycanda təhsil sahəsində və informasiya sistemlərinin inkişafında görülən irəliləyişlər ölkəni ictimai və iqtisadi sahələrdə davamlı artım və təsirli nəticələr əldə etməsinə kömək edir. Bu, ölkənin regional liderliyini qoruyub saxlamasına, ölkənin davamlı inkişafına və rifahına töhvə verəcək güclü bir təməl yaradır.

**AÇAR SÖZLƏR:Təhsil, ənənəvi sinif, rəqəmsallaşdırma, flipp education, elektron təhsil**

## GİRİŞ

Təhsil sahəsində və informasiya sistemləri tərəqqisində Azərbaycanda baş verən dəyişikliklər və inkişaf barədə söhbət edərkən, son illərdə ölkəmizdə müşahidə olunan yenilikləri və tendensiyaları dəyərləndirmək vacibdir. Təhsil sahəsində dövlət tərəfindən göstərilən diqqət və səylər, ölkəmizdə

təhsilin keyfiyyətini və mövcud potensialı artırmaq üçün əhəmiyyətli addımların atılmasına gətirib çıxarıb. Bu, həm tələbələrin daha yaxşı şəkildə hazırlanmasına imkan verir, həm də ölkənin inkişafı üçün daha güclü bir insan resursu yaradır.

Azərbaycanda informasiya sistemlərinin inkişafı da son dövrlərdə mühüm bir rola malik olmuşdur. İnformasiya texnologiyalarının genişlənərək tətbiqi, həm təhsil sahəsində, həm də digər sahələrdə effektiv proseslərin yaradılmasına imkan verir. Elektron təhsil platformaları, informasiya sistemləri vasitəsilə tələbələrə daha yüksək səviyyədə təhsil imkanları təmin edilir, onların öyrənmə prosesləri daha interaktiv və maraqlı hala gətirilir

Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 10 iyun tarixli 285 nömrəli Sərəncamı ilə 2008-2012-ci illə Azərbaycan Respublikasında təhsil sisteminin informasiyalaşdırılması üzrə **Dövlət proqramı təsdiq olunmuşdur. Dövlət proqramının məqsədi** təhsil sistemində **müasir təhsil texnologiyalarının genişmiqyaslı tətbiqi, təhsil müəssisələrinin kompüter avadanlığı ilə bağlı köklü şəkildə yaxşılaşdırılmasını və rəqəmsal resuslardan səmərəli istifadəni planlaşdırır. Təhsil sisteminə İnformasiya Kommunikasiya Texnologiyasının inteqrasiyası və tədris prosesinin modernləşdirilməsi zamanın tələbidir.**

Praqramda əsas Məqsəd və vəzifələri aşagıdakılardan ibarətdir.

- Elektron təhsil texnologiyalarının tətbiqinin artırılması:
- bütün fənlər üzrə müasir elektron elmi-metodiki vəsaitlər kompleksinin işlənilməsi və inkişafı;
- təhsil (öyrənmə) resurslarının yaradılması və elektron prosesinə inteqrasiyası;
- ölkə daxilində distant təhsilin inkişaf etdirilməsi üzrə işlər aparılır;
- təhsildə İKT-nin tətbiqi üzrə məlumat və resurs mərkəzinin yaradılması;
- vahid təhsil portalının yaradılması və mütəmadi dəstəklənməsinin təmin edilməsi;
- təhsildə dünya informasiya resurslarından səmərəli istifadənin təşkili, interaktiv tədris imkanlarından daha geniş istifadə edilməsinin dəstəklənməsi.

Əlavə olaraq, informasiya sistemlərinin inkişafı biznes sahəsində də mühüm rol oynayır. Elektron ticarət platformaları, iş sahəsində inkişaf etmək istəyən fərdi sahibkarlara və şirkətlərə geniş imkanlar təmin edir. İnformasiya texnologiyalarının istifadəsi iş proseslərini sürətləndirir, əməkdaşlığı artırır və iş fəaliyyətinin effektivliyini yaxşılaşdırır.

Bu dəyişikliklər və inkişaflar, Azərbaycanın informasiya cəmiyyətində daha müasir və rəqabətli bir mövqe əldə etməsinə kömək edir. Bundan əlavə, həm təhsil sahəsində, həm də iş sahəsində müasir texnologiyalardan istifadə etmək, ölkəmizin inkişafı və rifahı üçün əsaslı bir dayanıq təşkil edir.

**TƏDQIQAT METODU**

Digər ölkələrdə olduğu kimi Azərbaycanda da təhsilin inkişafı üçün böyük addımlar atılır. Dövlətin daha da inkişaf etməsi üçün ən əsas amillərdən biri onun təhsilli kadrlarının hansı nisbətdə təşkil edildiyindən asılı olduğunu deyə bilərik. Təhsil sadəcə insanlara bilik öyrətmək üçün yox eyni zamanda daha dünya görüşlü, mədəni olması üçün əsas amillərdən biridir. Ölkələrdəki təhsil səviyyələrini və təhsil üsullarını müqayisə etsək bir birindən fərqli struktur və metodologiyada olan, nəticə etibarı ilə fərqli nəticə alınan təhsil növlərini görmüş olarıq. Finlandiya daha yumuşaq təhsil sistemi ilə tanınıb, Çin daha sərt təhsil sistemi ilə tanınmasına baxmayaraq nəticə etibarı ilə ikisinin də uğurlu təhsil sisteminin olduğunu deyə bilərik[4]. Bəs təhsil daha tələbkar və ya rahat olmasından asılı deyilsə, təhsil hansı meyarlara əsasən tənzimlənir?

Məşhur təhsil texnoloqu Ceyms Finn texnologiyanı təsvir edərkən belə deyir: “Maşınların istifadəsi ilə yanaşı, texnologiya sistemləri proseslər, idarəetmə və idarəetmə mexanizmləri həm insanlardan həm də əşyalardan yaranan problemlərə həll yolları təqdim edə bilirlər, deyə bilərik ki bu problemlər texniki həllərin imkanları və onların iqtisadi dəyərləri üçün prespektivdir.[1]

Bun nöqteyi nəzərdən baxsaq təhsilin hansı ölkədə olduğuna və həmin ölkənin mədəni vəziyyətindən tarixinə qədər bir çox amil təsir edə bilər. Ölkənin çətin tarixi keçmişə sahib olması onun hazırki vəziyyəti ilə yanaşı təhsilinin daha sərt olması ilə özünü biruzə verir. Buna Çindəki təhsili misal göstərə bilərik. Çin öz təhsil müəssisələrində təhsil sahəsindəki tələbkarlıqları ilə yanaşı eyni zamanda müəssisənin bir sıra kənar işləri ilə də şagird və ya tələbələri vəzifələndirir. Bu məsələyə daha dərindən aydınlıq gətirsək təhsil müəssisələrində şagird və ya tələbələrin yeməkxanalarda və ya digər yerlərində işçi heyətə kömək və ya birbaşa onların işini tamamilə icra

etdiklərini görə bilərik. Bu formada təhsilə dəstək olunduğunu tamamilə aydın şəkildə deyə bilməsək də sagird və ya tələbələrin kollektiv şəkildə işləmək, səlahiyyət ala bilmə bacarıqlarının formalaşdığını, təlim və tərbiyə prosessinə daha asan uyğunlaşdıqlarını deyə bilərik.

Günü gündən müasirləşən dövrümüzdə nəinki təhsil sahəsində bütün sahələrdə texnoloji alətlərdən istifadə edilir. Təhsil sahəsində texnoloji yeniliklərdən istifadə etmək ilkin olaraq auditoriyalardakı texnoloji alətlərdən başlasa da daha sonra bu özünü yavaş yavaş yeni proqram vasitələrinin istifadəsinə gətirib çıxardı. Belə ki, daha öncələr həmin proqramlar dünyanın aparıcı ölkələrində istifadə etməyə başlasa da uzun zamandır ölkəmizdə də istifadə edilir. Bu proqramlara ən böyük örnək olaraq məktəb və universitetlərin elektron təhsil portallarını göstərə bilərik. Elektron təhsil portallarının istifadəsi zamanı ənənəvi jurnal qeydiyyatı elektron formaya keçirilir və bunun sayəsində müəllimlər tərəfindən təhsil alanlar qiymətləndirilir və təhsil alanlar da müvafiq portala daxil olaraq özləri haqqında olan iştirak vəziyyətlərini görə bilirlər.[5]

Elektron təhsil portallarının istifadəsi elektron jurnal sisteminə keçiddən əlavə təhsil alanların təhsil resurslarını bu portaldan əldə etməsi kimi imkan yaradır. Bu formada təhsil sistemi Flipp Education adlanır. Adından da göründüyü kimi Flipp Education ənənəvi təhsilin tərsinə çevrilmiş halıdır. Bu sistem sayəsində müəllimlər təhsil alanlara resursları əvvəlcədən verir. Təhsil alanlar növbəti dərsə keçməzdən əvvəl edə bu mövzu barəsində çalışır və bu dərsin keçiriləcəyi dərsə hazır formada gəlir. Evə tapşırıq verilməz, veriləcək tapşırıq müəllimlə birlikdə bütün auditoriya ilə birlikdə dərs zamanı edilər.

Flipp Education passiv öyrənmə təcrübəsini aktiv və cəlbedici təcrübəyə çevirmək üçün katalizator kimi ortaya çıxdı. Ənənəvi sinif şəraiti tez-tez tələbələrin diqqətini cəlb etmək və saxlamaq üçün mübarizə aparır, bu da marağın və iştirakın azalmasına səbəb olur. Bununla belə, Flipp education modeli öyrənmə prosesini yenidən qurmaqla əsaslı dəyişiklik təqdim edir.

Bu transformasiyanın əsas cəhətlərindən biri tələbə cəlbinin yüksək səviyyəsidir. Flipp Education'da tələbələr artıq passiv məlumat alanlar deyil, öyrənmə səyahətlərinin fəal iştirakçılarıdır.[6] Evdə təhsil üçün təyin edilmiş əvvəlcədən yazılmış mühazirələr və materiallar sinifdəxili fəaliyyətlər, müzakirələr və birgə layihələr üçün əsas rolunu oynayır. Ənənəvi modelin bu inversiyası tələbələri interaktiv fəaliyyətlər vasitəsilə öz biliklərini tətbiq etməyə və dərinləşdirməyə hazır olan əsas anlayışla sinifə gəlməyə təşviq edir.

Sinifdən əvvəlki materiallar mənalı müzakirələr üçün tramplin rolunu oynayır, burada tələbələr mürəkkəb mövzuları araşdıra, aydınlaşdırma axtara və həmyaşıdlar arası öyrənmə ilə məşğul ola bilərlər. Bu interaktiv diskurs öyrənmə prosesinə sahiblik hissini gücləndirir, çünki tələbələr sinifdə biliklərin qurulmasına fəal töhfə verirlər. Üstəlik, müəllim fasilitatora çevrilir, tələbələri naviqasiya edərkən onlara rəhbərlik etmək və onlara mentorluq etmək və konsepsiyaları birgə araşdırmaq rolunu öz üzərinə götürür.

Bundan əlavə, multimedia resurslarının sinifdən əvvəlki materiallara daxil edilməsi müxtəlif öyrənmə üslublarına xidmət edir, əlçatanlığı və inklüzivliyi artırır. Tələbələr məzmunu öz sürətlərində nəzərdən keçirmək, fərdi üstünlüklərə və öyrənmə ritmlərinə cavab vermək üçün çevikliyə malikdirlər. Bu uyğunlaşma qabiliyyəti muxtariyyət hissini təşviq edir, tələbələrə təhsilləri üçün məsuliyyət daşımağa imkan verir.

Sinifdaxili fəaliyyətlərə əlavə olaraq, Flipp Education tez-tez sinifdən kənarda davamlı əlaqəni asanlaşdırmaq üçün texnologiyanı birləşdirir. Onlayn forumlar, virtual əməkdaşlıq alətləri və interaktiv qiymətləndirmələr davamlı öyrənmə və qarşılıqlı əlaqə üçün imkanlar təmin edir. Bu genişləndirilmiş nişan ənənəvi sinif saatlarının hüdudlarından kənara çıxır, icma hissini və paylaşılan öyrənmə təcrübələrini gücləndirir.

Empirik tədqiqatlar ardıcıl olaraq göstərir ki, Flipp Education'da olan tələbələr daha yüksək səviyyədə motivasiya və öyrənmə həvəsinə sahib olurlar. Müzakirələrdə, problemlərin həllində və praktiki fəaliyyətlərdə fəal iştirak etməklə tələbələr nəinki mövzu haqqında anlayışlarını dərinləşdirir, həm də tənqidi düşünmə bacarıqlarını və şəxsiyyətlərarası qabiliyyətləri inkişaf etdirirlər.[3]

Nəticə olaraq, flipp education'un tələbələrin cəlb edilməsinə təsiri və ənənəvi sinif otağının dinamikasını əsaslı şəkildə dəyişir. Sinifdən əvvəlki materiallar və sinifdəxili əməkdaşlıq fəaliyyətləri vasitəsilə fəal iştirakın təşviqi tələbələrə onların motivasiyasını, tənqidi düşünmə bacarıqlarını və ümumi təhsil təcrübəsini artıraraq fəal öyrənən olmağa imkan verir. Biz innovativ pedaqoji yanaşmaları araşdırmağa davam etdikcə, Flipp Education modeli dinamik, tələbə mərkəzli öyrənmə

mühitləri yaratmaq üçün perspektivli bir yol kimi seçilir. Flipp education'dan əlavə olaraq Azərbaycanda təhsil sahəsindən başqa sahələrdə elektronlaşmadan istifadə olunur. Ümumiyyətlə informasiya sistemlərinin təkamülü Azərbaycan cəmiyyətinə dərin təsir göstərmiş, vətəndaşları arasında daha çox əlaqə, əlçatanlıq və səlahiyyətlərin artırılmasına kömək etmişdir. Onlayn platformalar vasitəsilə təhsil və səhiyyə xidmətlərinə çıxışın yaxşılaşdırılması insan kapitalının və ümumi həyat keyfiyyətinin yüksəldilməsinə töhfə vermişdir. Eynilə, maliyyə xidmətlərinin rəqəmsallaşdırılması maliyyə inklüzivliyini asanlaşdırmış, fiziki şəxslərə və bizneslərə bank və ödəniş həllərinə çıxış imkanı vermişdir.

İqtisadi nöqteyi-nəzərdən informasiya sistemlərinin inteqrasiyası Azərbaycanda innovasiyaları, sahibkarlığı və xarici investisiyaları sürətləndirdi. Hökumətin təşəbbüsləri və vençur kapitalı ilə dəstəklənən canlı startap ekosisteminin yaranması yeni iş imkanlarının yaradılmasına və iqtisadi artımın şaxələndirilməsinə gətirib çıxardı. Bundan əlavə, e-ticarət platformaları kiçik və orta müəssisələrin daxili və beynəlxalq bazarlara çatması üçün həyati bir yol kimi meydana çıxdı, bununla da ticarətin genişlənməsinə və iqtisadi dayanıqlığa töhfə verdi.

Əldə edilmiş əhəmiyyətli irəliləyişlərə baxmayaraq, Azərbaycanın informasiya sistemlərinin mənzərəsi hələ də rəqəmsal uçurum, kibertəhlükəsizlik təhdidləri və tənzimləyici çərçivələr daxil olmaqla bir sıra problemlərlə üzləşir. Bu problemlərin həlli inklüziv və davamlı inkişafı təmin etmək üçün hökumət, özəl sektorun maraqlı tərəfləri və vətəndaş cəmiyyətinin birgə səylərini tələb edəcək.

Gələcəyə baxsaq, Azərbaycanda informasiya sistemlərinin gələcəyi gələcək innovasiya və transformasiya üçün böyük potensiala malikdir. Süni intellekt və blokçeyn kimi inkişaf etməkdə olan texnologiyaların mənimsənilməsi kənd təsərrüfatı, enerji və ağıllı şəhərlər də daxil olmaqla müxtəlif sektorlarda yeni imkanların kilidini açа bilər. Bundan əlavə, rəqəmsal savadlılığın və bacarıqların inkişafının təşviqi işçi qüvvəsini gücləndirmək və rəqəmsal inqilabın tam faydalarından istifadə etmək üçün çox vacib olacaq.[2]

Nəticə olaraq, Azərbaycanda informasiya sistemlərinin tərəqqisi ictimai və iqtisadi sahələrdə davamlı artım və təsirli nəticələrlə səciyyələnir. İnfrastrukturun inkişafının ilkin mərhələlərindən tutmuş rəqəmsal transformasiyanın hazırkı dövrünə qədər ölkə inkişaf üçün texnologiyanın gücündən istifadə etməkdə davamlılıq və uyğunlaşma nümayiş etdirmişdir. Mövcud problemləri həll etməklə və gələcək imkanları əhatə etməklə, Azərbaycan informasiya sistemləri sahəsində regional lider kimi meydana çıxmağa, gələcək illərdə öz vətəndaşlarının davamlı inkişafına və rifahına təkan verməyə hazırlaşır.

**NƏTİCƏ**

Tədqiqatın əsasında əldə edilmiş nəticələrə əsasən, Azərbaycanda informasiya sistemlərinin inkişafı mövcud ictimai və iqtisadi sahələrdə səmərəli və davamı bir artım və təsirlərin yaranmasına gətirib çıxarır. İnfrastrukturun ilk mərhələlərindən başlayaraq rəqəmsal transformasiyanın hazırki dövrünə qədər, ölkə inkişaf üçün texnologiyadan istifadə etməkdə davamlılığı və uyğunlaşmağını nümayiş etdirib. Bu ölkənin informasiya sistemləri sahəsində regional lider kimi fəaliyyət göstərməsinə və gələcəkdə vətəndaşlarının davamlı inkişafına və rifahına təkan verməsinə imkan verir. Aparılan tədqiqatın əldə etdiyi nailiyyətlər və nəticələr əsasında Azərbaycanda informasiya sistemlərinin quruluşu və inkişafı üçün görülən işlər ictimai və iqtisadi sahələrdə infrastrukturun sürətli inkişafını təmin edir. Buaraya kommunikasiya internet və mobil şəbəkələrin genişlənməsi ilə əlaqədar tədbirlər daxildir. Ölkə rəqəmsal rəqəmsal dönüşümün əsas mərhələlərindən keçib hazırda daxili və xarici bazarlarda daha aktiv iştirak etməyə başlayıb. İnfromasiya sistemləıri sahıəsində hələ də rəqəmsal uçurum, kibertəhlükəsizlik tədbirləri və tənzimləyici çərçivələr kimi problemlərlə üzləşilməkdədir. Bunların həlli üçün hökumət, özəl sektor və vətəndaş cəmiyyəti birgə çalışmalıdır. Bu dəyişikliklər ölkənin davalı inkişaf və rifahına töhfə verməkdə əsaslı rol oynayacaq.

**ƏDƏBİYYAT SİYAHISI**

1. https://e-qanun.az/framework/14766
2. Allahverdiyev N., Namazov M., "Kompyuter və informasiya-kommunikasiya texnologiyaları", Bakı, 2012.
In second language (L2) classrooms, creative writing as storytelling is a pedagogical method for developing oral and written skills. However, adding multimodality to writing strengthens students' voices, creativity, and literacy abilities even more (Ohler, 2006). In order to express meaning, multimodality refers to the blending of many modalities such as texts, still and moving pictures, speaking, writing, layout, and gestures (Adami, 2016). Assigning narrative projects to students and including several modalities into them encourages learning, develops higher order thinking abilities, and increases possibilities for the kind of meaningful and imaginative language usage that is essential for second language acquisition (Gee & Hayes, 2011). Tools that facilitate multimodality are essential for 21st-century linguistically and culturally diverse classrooms, given the significance of providing second language (L2) learners with a variety of chances to construct and convey meaning (Cowan & Cress, 2017).

With StoryJumper, you can set assessment that don't even seem like work, making you the "cool/fun" instructor. Students like making their own StoryJumper books, especially when they can do it along with their peers. Students feel that they are doing it for themselves and each other rather than simply "another boring homework assignment" from the teacher when they share their stories and artwork, original characters, and innovative books.

**RESEARCH METHOD**

Classroom action research was chosen as research design in this study. The step of this classroom action research design is proposed by me, which is consisting of planning, implementing, observing and reflecting. The participants of this research were students in English Department of Azerbaijan University of Languages in 2023/2024 years, which is consist of 18 students. Those participants were taken writing subject in this first semester. They have basic in producing writing text. Data was gathered through testing and observation. Prior to beginning the cycles, the participants who were EFL learners were given a pretest by the researcher. Additionally, the researcher completed cycle 1's standard writing assignments before moving on to cycle 2's storyjumper writing. Cycle 2 was carried out in four stages: planning, carrying out, observing, and reflecting. Creating a lesson plan, teaching materials, storyjumper as a learning tool, writing exam (in this case, on writing subjects), and observation list are all part of the planning stage or phase. Next, there was an activity by using Storyjumper in narrative text composing throughout the implementation stage. Before engaging in writing exercises with Storyjumper, EFL students should be familiar with its functioning procedures. In addition, they must to comprehend the idea of writing, its general patterns, and the aims. The researcher allowed the students to write a narrative essay using the storyjumper, depending on their inventiveness, once they had mastered its operation. Again, storyjumper offers a ton of fascinating features. Although it's likely that the students may require longer time to finish their stories, the instructor will still be able to supervise their work. In addition to reminding students of the time restriction, the researcher (teacher) can also offer guidance to students who make mistakes when completing narrative writing exercises. The observation phase was carried out as the learning process progressed. In this stage, the researcher watched how EFL students responded to the learning process as well as their writing activities. The final phase is to reflect. In this phase, the researcher assessed the action or activity that was carried out, examined the test results, came to a provisional conclusion, and got ready to take more action.

**Table 1.** The Assessment of Writing Rubric

| Assessment Point | Competencies | Score Level |
|---|---|---|
| **Content** | **Excellent**-Very Good : Relevant to the topic, development thoroughly of thesis, substantive, knowledgeable | 30-27 |
| | **Good**-Average : Topic relevant, lack detail of the thesis was limited development, enough range, enough knowledge | 26-22 |
| | **Fair**-Poor : Thesis adequate development, minimal substances, minimal knowledge | 21-18 |
| | **Very poor** : Not relevant, non-substantive, have not knowledge about the subject. | 16-13 |
| **Organization** | **Excellent**-Very Good : Cohesively organization, logical sequencing, well organized, succinctly writing, ideas supported, perfect expression | 20-18 |
| | **Good**-Average : Incomplete sequencing but it is logical, limited support, the appearance of main idea but loosely organized | 17-14 |
| | **Fair**-Poor : Lacks of logical sequencing, confusing ideas, non-fluent expression | 13-10 |
| | **Very poor** : Cannot evaluate, bad organization, uncommunicative writing | 9-7 |
| **Vocabulary** | **Excellent**-Very Good : Appropriate registered, mastery of word composition, correct word choice, correct usage, perfect range | 20-18 |
| | **Good**-Average : obscured meaning, occasional incorrect word choice and usage, adequate range | 17-14 |
| | **Fair**-Poor : Confused meaning, word choice and usage are errors frequently, limited range | 13-10 |
| | **Very poor** : poor knowledge of word form and vocabulary, not proper evaluate, translation tool result. | 9-7 |
| **Language Use** | **Excellent**-Very Good : Minimal errors in language use such as pronoun, number, preposition, article, complex and perfect composition | 25-22 |
| | **Good**-Average : Some errors of language use, minimal problem in composition, simple composition | 21-18 |
| | **Fair-Poor** : Maximal problem in composition, frequent error in language use, confused meaning, | 17-11 |
| | **Very poor** : Bad composition, error dominated of language use, unreasonably. | 10-5 |
| **Mechanics** | **Excellent**-Very Good : Minimal errors of mechanics such as paragraphing, capitalization, punctuation, spelling | 5 |
| | **Good**-Average : Occasional mistakes of mechanics, obscured meaning | 4 |
| | **Fair-Poor** : Frequent mistakes in mechanics, obscured meaning | 3 |
| | **Very poor** : Error dominated of mechanics, unreasonably. | 2 |

**Source**: Jacobs et al, 1981, as cited in Brown, 2004

In this research, the theory of Jacobs et al. was employed to write the analytical rubric. It is composed of thirty points for content, twenty points for vocabulary and structure, twenty points for language usage, and five points for mechanics (Jacobs et al., 1981, as quoted in Brown, 2004). Writing that consists of the ideas developing logically is referred to as content. Excellent writing is defined as addressing the given issue, having well-developed, concrete ideas, being free of unnecessary details, and reflecting the writer's thoughts (Brown, 2004). The writing's introduction, body, and conclusion make up its organization. Vocabulary assessment comes next. It refers to word choice in writing, which takes into account the expression's quality and word choice. Moreover, it involves linguistic usage. It concentrates on essay writing grammar, including pronouns, numbers, prepositions, articles, difficult compositions, and excellent compositions. The mechanics assessment point is the final one.

When an essay adheres to English writing rules like paragraphing, capitalization, grammar, and spelling, it is considered outstanding.

Storyjumper's impacts on EFL learners' writing abilities as a digital learning tool have been studied. There are two ways to explain the research findings: as quantitative results and as qualitative results. A test's quantitative result was gathered. The results of the observation, interviews, and documentation were then combined to create the qualitative result. The exam result was evaluated using a written evaluation of Jacob's theory. They were mechanics, vocabulary, structure, topic, and language usage. Researchers started to worry about such while evaluating the writing output of EFL students. Figure 1 shows an example of student writing outcomes.




**Figure 1.** EFL learner writing result on Storyjumper

Following the evaluation of every piece of writing produced by EFL learners, it was discovered that the cycle 1 participants had the lowest mean score. Ultimately, in cycle 2, the mean score increased even further.

**Table 2.** EFL Learners' writing achievement

| Aspects | Cycle 1 test | Cycle 2 test |
|---|---|---|
| Content | 17.35 | 22.57 |
| Organization | 11.45 | 15.56 |
| Vocabulary | 10.5 | 14.42 |
| Language Use | 9.25 | 15.25 |
| Mechanic | 4.28 | 6.26 |
| Total | 53.01 | 74.06 |

The table above showed that the improvement was occurred on EFL Learners' writing ability. Before they practiced to writing assessment using StoryJumper the total of mean score was 53.01. After implemented it, the test result of cycle 2 was increased become 74.06.Moreover, there are learners who made some errors in writing. They are frequent made errors in words and used incorrect vocabularies.




**Figure 2.** Chart of EFL Learners' writing achievement

Even though the EFL students had studied texts, they were perplexed about where to begin writing before storyjumper was included to the writing program. Even though there were ten minutes remaining, several of them had barely written one phrase on their paper. It required more time for them to begin writing. Following the implementation of Storyjumper in Cycle 2, the EFL students appear eager to begin writing. Numerous elements on it might aid pupils in formulating their ideas. As far as we are aware, Storyjumper's characteristics facilitate writing activities.

As a complex process, writing needs storyjumper as appropriate and interesting learning media for the EFL learners. Through to the finding research, it revealed that the improvement of narrative writing ability of the EFL learners was occurred after implemented storyjumper. This result is supported by (Damavandi, 2017) who stated that implemented technology as digital storytelling tool in the writing class gave positive effect more than traditional way because it make the learners generate their ideas in their writing result. This finding research is also relevant to (Zakaria, 2016), who claimed that students give positive response in writing digital storybook.

**CONCLUSION**

The study's findings support the conclusion that storyjumper, a digital tool for telling stories, improves EFL students' writing skills in particular. Two points provide for the proof of the proposition. First, the test result is better than the first test; in this example, the writing exercise was completed before StoryJumper was included to Cycle 1. The test's mean score was 53.01.After that, there was a noticeable improvement in Cycle 2, with a mean score of 74.06. Based on an analysis of students' narrative writing processes, the test's mean score was determined using Jacob's theory. Certain statistics demonstrated that storyjumper had a favorable impact on learning outcomes in addition to exam scores. They are as follows: (1) they started writing quickly because they found a lot of inspiration from the storyjumper's features; (2) they appeared to actively participate in and enjoy the narrative writing process; and (3) the EFL students were concentrated on their writing assignment.

The research showed and proved that Storyjumper, as a pedagogy-supporting tool, fits into the dynamics of modern classrooms. On the one hand, students must be given the chance to construct meaning in multimodal ways, such as through the use of tales, the blending of text, images, and audio, and the option of translanguaging, in light of cultural and linguistic diversity. However, in order to accomplish literacy development especially digital literacy and language development, technology must be integrated in ways that enhance student engagement. Storyjumper can stimulate and develop higher-order cognitive abilities. It encourages bi/multilingual students to develop their writing voices and gives them a sense of ownership because they are not just users of technology but also creators of it.

Scientific experiment showed that when given a variety of possibilities to use technology for business, education, and global contribution, students learn even more. Because Storyjumper has the capacity to captivate children, teachers and students may make the most of the chances for literacy and language development that Storyjumper offers.

**REFERENCES:**

1. Canagarajah, S. (2011). Codemeshing in academic writing: Identifying teachable strategies of translanguaging. The Modern Language Journal, 95(3), 401-417.

2. Cordi, K., & Masturzo, K. (2013). Using literature and digital storytelling to create a safe place to address bullying. Voices from the Middle, 20(3), 21-26.

3. Cowan, K., & Kress, G. (2017). Documenting and transferring meaning in the multimodal world: Reconsidering "transcription!'. In F. Serafini & E. Gee (Eds.), (2017). Remixing Multiliteracies: Theory and Practice from New London to New Times, 50 -61. New York, NY: Teachers College Press.

4. Egbert, J. (2007). Asking useful questions: Goals, engagement, and differentiation in technology-enhanced language learning. Teaching English with Technology, 7(1), 1-17.

5. Egbert, J. (2009). Supporting Learning with Technology: Essentials of Classroom Practice. Upper Saddle River, NJ: Pearson.

6. Egbert, J., & Shahrokni, S. A. (2018). CALL principles and practices. OER. Available online at https://opentext.wsu.edu/call/chapter/principles-of-call/

7. Emert, T. (2014). Interactive digital storytelling with refugee children. Language Arts, 91(6), 401-415.

8. Gee, J. P., & Hayes, E. R. (2011). Language and Learning in the Digital Age. New York, NY: Routledge.

9. Hanson, J. (2013). Moving out of the monolingual comfort zone and into the multilingual world: An exercise for the writing classroom. In A. S. Canagarajah (Ed.), Literacy as Translingual Practice, 207–214. New York, NY: Routledge.

10. Kano, N. (2012). Translanguaging as a Process and a Pedagogical Tool for Japanese Students in an English Writing Course in New York (Doctoral dissertation, Teachers College, Columbia University).

11.Kiramba, L. K. (2017). Translanguaging in the writing of emergent multilinguals. International Multilingual Research Journal, 11(2), 115-130.

12. Muhtaris, K., & Ziemke, K. (2015). Amplify: Digital Teaching and Learning in the K-6 Classroom. Portsmouth: Heinemann.

13.Ohler, J. (2005). The world of digital storytelling. Educational Leadership 63(4), 44-47.

14.Pacheco, M. B., & Miller, M. E. (2016). Making meaning through translanguaging in the literacy classroom. The Reading Teacher, 69(5), 533-537.

15.Velasco, P., & García, O. (2014). Translanguaging and the writing of bilingual learners. Bilingual Research Journal, 37(1), 6-23.

16.Zakaria, S. M. (2016). Students' Experience of Using Storybird in Writing ESL Narrative Text. Creative Educators. 7. 2107-2120. 2016.71520. http://dx.doi.org/10.4236/ce.

# ÖLKƏNİN İQTİSADİ İNKİŞAFINDA TƏHSİLİN ROLU

**f.-r.e.n., dos. Abdulla X. Abdullayev və Magistrant Qumru Ə.Ocaqverdiyeva**
Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC), Murtuza
Muxtarov, 194, Bakı, Yasamal, AZ1065
BMDM, Kompüter elmləri, İnformasiya sistemləri, Qrup-560
**E -mail**: a.x.abdullayev@mail.ru
**E -mail**: ocaqverdiyevaqumru2@gmail.com
BAKI , AZƏRBAYCAN

**XÜLASƏ**

Ölkənin iqtisadi inkişafının və sabitliyinin əsasının formalaşmasında insan kapitalının rolu tez-tez müzakirə olunur ki, bu fikrə həm alimlər, həm tədqiqatçılar, həm də siyasətçilər və insanların özləri diqqət yetirirlər. Aydın oldu ki, konkret cəmiyyətin necə inkişaf edəcəyində təkcə qanunvericilik bazaları, resurslar və istehsal potensialı deyil, həm də insanların özləri də mühüm rol oynayır. Belə mühüm konsepsiya çərçivəsində özlüyündə heç də az əhəmiyyət kəsb etməyən bir amil var - təhsil institutunun inkişafı və onun əhalinin geniş təbəqələri üçün əlçatanlığı. Azərbaycanda təhsil müəssisəsinin mövcud vəziyyətini və onun uğurlu fəaliyyətinin dövlətin tərəqqisinin qlobal istiqamətləri, xüsusən də davamlı iqtisadi inkişafla əlaqəsini təhlil etməyə çalışaq. Problemin öyrənilməsinin mühüm aspekti Azərbaycanda təhsil sisteminin təkmilləşdirilməsi siyasətinin dünyanın aparıcı iqtisadi gücləri ilə tətbiqinin effektivliyinin müxtəlif göstəricilərinin nəzərdən keçirilməsidir.Əlbəttə ki, təhsil sisteminin təkmilləşdirilməsi və dünyanın iqtisadi gücləri ilə

əlaqələndirilməsi mühüm bir məsələdir. Bu, təhsilin iqtisadi inkişaf üçün əhəmiyyətli bir amil olduğunu və habelə dünya bazarında konkurentliyi artırmağa kömək etdiyini göstərir. Bu prosesdə effektivlik müxtəlif göstəricilərə baxış əsaslıdır, o cümlədən təhsil keyfiyyəti, mütəxəssis kadrların hazırlanması, innovasiyaların tətbiqi və daha bir çox faktor.

**AÇAR SÖZLƏR**: **Təhsil, insan kapitalı, ölkənin inkişafı, ölkə iqtisadiyyatı, təhsilə investisiya.**

## GİRİŞ

Tarixi mənbələr göstərir ki, Azərbaycanda ibtidai savad təlimi verən ilk məktəblərin yaranması yeni eranın əvvəllərinə təsadüf edir. VII əsrdə artıq təhsil sistemi formalaşmaqda idi. Daha sonralar inkişaf elə bir səviyyəyə çatmışdı ki, X-XIII əsrlərdə Azərbaycanın bir çox şəhərləri,Təbriz,Marağa,Gəncə,Naxçıvan və s.elm,təhsil,incəsənət və mədəniyyət mərkəzləri kimi tanınırdı.Eramızın XIII-XIV əsrlərində təhsil və elm sahəsindəki canlanma və inkişaf, bir sıra tanınmış təhsil ocaqlarının fəaliyyəti diqqəti cəlb edir. Onlardan Təbrizdə "Qazaniyyə", "Fələkiyyə", "Şeyx Kəmaləddin Xocəndi", "Dəməşqiyyə", "Qazi Şeyx Əli", "Məqsudiyyə" mədrəsələri geniş fəaliyyət göstərmişlər. Şənbi-Qazanda "Şəfeiyyə" və "Hənəfiyyə" mədrəsələri olmuşdur. Bakıda "Şah məscidi" yanında mədrəsə, Seyid Yəhya mədrəsəsi, Ərdəbildə Şeyx Səfi məqbərəsi nəzdindəki "Darül-irşad", Dərbənddə məhəllə məscidi yanındakı mədrəsənin fəaliyyəti daha qabarıq şəkildə özünü büruzə verirdi. Bu dövrdə orta təhsillə yanaşı, geniş ərazidə tanınmış ali təhsil müəssisələrinin də fəaliyyət göstərdiyi xəbər verilir. Təbrizdə "Rəbi-Rəşididə" darülfününu Yaxın və Orta Şərqin ən böyük təhsil ocağı idi. Bu ali məktəbdə 7 min tələbə təhsil alırdı. Burada Çin, Hindistan, Misir və Suriyadan dəvət olunmuş 500 nəfər alim tədris işilə yanaşı, həm də əhalinin müalicəsilə məşğul olmuşlar.

## TƏDQIQAT METODU

İbtidai təhsilin məqsədi uşaqlarda oxumaq, yazmaq və hesablama qabiliyyəti yaratmaq, onlarda insan, cəmiyyət və təbiət haqqında ilkin həyati biliklər, məntiqi təfəkkür elementləri, estetik, bədii zövq və digər xüsusiyyətləri formalaşdırmaqdan ibarətdir. İbtidai təhsil müvafiq təhsil proqramına (kurikulumuna) əsasən həyata keçirilir. Azərbaycan Respublikasında ibtidai təhsil altı yaşdan başlayır və birinci-dördüncü sinifləri əhatə edir.Ümumi orta təhsilin məqsədi şagirdlərdə şifahi nitq və yazı mədəniyyətinin, ünsiyyət bacarığının, idrakı fəallığın və məntiqi təfəkkürün formalaşmasını, təhsil proqramına daxil olan fənlər üzrə və eləcə də dünya sivilizasiyasının inkişafı haqqında müvafiq bilik və təsəvvürlərin yaradılmasını, müasir informasiya-kommunikasiya vasitələrindən istifadə etmək qabiliyyətini, hadisələri qiymətləndirmək və öz gələcək fəaliyyət istiqamətini müəyyənləşdirmək bacarığını təmin etməkdən ibarətdir. Ümumi orta təhsil beşinci-doqquzuncu sinifləri əhatə edir. Azərbaycan Respublikasında ümumi orta təhsil icbaridir. Ümumi orta təhsil pilləsində yekun qiymətləndirmə aparılır və təhsili başa vuran şagirdlərə müvafiq dövlət sənədi - attestat verilir. Ümumi orta təhsil haqqında sənəd təhsilin növbəti pillədə davam etdirilməsi üçün əsas sayılır.

Tam orta təhsil pilləsində şagirdlərin istedad və qabiliyyətinin reallaşdırılması, onların müstəqil həyata və peşəseçməyə hazırlanması, fəal vətəndaş mövqeyinin formalaşdırılması, milli və ümumbəşəri dəyərlərə, insan hüquq və azadlıqlarına hörmətlə yanaşması və tolerantlığı, xarici dillərdən birində, yaxud bir neçəsində ünsiyyət saxlaması və s. təmin olunur. Tam orta təhsil ümumi orta məktəb təhsilinin hər üç pilləsini əhatə edən təhsil proqramlarının tam mənimsənilməsini nəzərdə tutur. Tam orta təhsil pilləsində təhsilin təmayülləşməsi (humanitar, texniki, təbiət və digər) təmin olunur.Tam orta təhsil ümumi orta məktəb təhsilinin sonuncu pilləsi olaraq onuncu - on birinci sinifləri əhatə edir və bu pillədə təhsil alanların biliyinin qiymətləndirilməsinin yekun dövlət attestasiyası həyata keçirilir. Attestasiyanın nəticəsinə görə məzunlara müvafiq qaydada dövlət nümunəli sənəd - attestat verilir. Tam orta təhsil haqqında sənəd təhsilin növbəti pillədə davam etdirilməsi üçün əsas sayılır.Ali təhsil tam orta təhsil və orta peşə-ixtisas təhsili bazasından cəmiyyətin və əmək bazarının tələbatı nəzərə alınmaqla yüksək ixtisaslı mütəxəssis hazırlığını təmin edir. Azərbaycan Respublikasının ali təhsil müəssisələrində mütəxəssis hazırlığı üç pilləlidir: Birinci pillə - bakalavr, İkinci pillə - magistratura, Üçüncü pillə – doktorantura.Bakalavr təhsil pilləsində ayrı-ayrı istiqamətlər üzrə geniş profilli ali təhsilli mütəxəssis hazırlığı həyata keçirilir. Ali təhsilin bakalavriat pilləsini bitirən məzunlara "bakalavr" ali peşə-ixtisas dərəcəsi verilir. Bakalavriat təhsil pilləsini bitirmiş məzunların əmək fəaliyyəti sahəsi elmi-tədqiqat və ali təhsil müəssisələrində elmi-pedaqoji fəaliyyət istisna olmaqla bütün digər sahələri əhatə edir.Azərbaycan vətəndaşları üçün Bakalavr təhsil

səviyyəsinə qəbullar DİM(Dövlət İmtahan Mərkəzi) nəticəsi ilə qəbul olunsada xarici vətəndaşlar üçün Azərbaycan respubilkası universitetlərinə bütün təhsil səviyyələri üzrə imtahansız qəbullar mümkündür.Həmçinin Azərbaycan vətəndaşlarıda xaricdə təhsil şirkətlərinə müraciət edib heç bir imtahan vermədən xarici universitetlərə qəbul ola bilirlər. Vətəndaşlar xaricdə təhsil təhsil məsləhətçilərinə və ya xaricdə təhsil şirkətlərinə üz tutulur.

Magistratura təhsil pilləsində ixtisaslaşmalar üzrə elmi-tədqiqat və ali təhsil müəssisələrində elmi-pedaqoji fəaliyyətlə məşğul olmaq hüququna malik olan ali təhsilli mütəxəssis hazırlanır. Magistratura təhsili magistr dissertasiya işinin müdafiəsi ilə başa çatır və həmin dissertasiyanı müvəffəqiyyətlə müdafiə etmiş məzunlara «magistr» ali elmi-ixtisas dərəcəsi verilir. Ali təhsilin hər bir pilləsini müvəffəqiyyətlə bitirmiş məzununa müvafiq qaydada dövlət nümunəli sənəd - diplom verilir.Ölkə iqtisadiyyatının inkişafında təhsilin birmənalı rolu var, başqa sözlə müasir dövrdə təhsil sadəcə savadlı insanlar yetişdirmək demək deyil, insan kapitalı ümumilikdə iqtisadiyyata və ölkənin iqtisadi inkişafına qoyulan sərmayədir. Təhsil artıq mənəvi və mədəni inkişaf olmaqla kifayətlənmir, o, iqtisadi inkişafın, sosial tərəqqinin amili kimi çıxış edir. təhsil olmada ardıcıl və geridönməz iqtisadi irəliləyiş mümkünsüzdür. Biliyin rolu dəyişmiş və böyümüşdür, bilik durmadan innovasiyalar və yeni istehsal məhsulları yaradır. Bilik ümumilikdə yeni həllər və tətbiqetmələr deməkdir, bu isə hazırda proqram yazılışından tutmuş gen mühəndisliyinə qədər müxtəlif seqmentləri əhatə edən və bir çox ölkələrin iqtisadiyyatında ciddi xüsusi çəkiyə sahib olan bilgi iqtisadiyyatına yol açmışdır. Ölkənin iqtisadi inkişafının və sabitliyinin əsasının formalaşmasında insan kapitalının rolu tez-tez müzakirə olunur ki, bu fikrə həm alimlər, həm tədqiqatçılar, həm də siyasətçilər və insanların özləri diqqət yetirirlər. Aydın oldu ki, konkret cəmiyyətin necə inkişaf edəcəyində təkcə qanunvericilik bazaları, resurslar və istehsal potensialı deyil, həm də insanların özləri də mühüm rol oynayır. Belə mühüm konsepsiya çərçivəsində özlüyündə heç də az əhəmiyyət kəsb etməyən bir amil var - təhsil institutunun inkişafı və onun əhalinin geniş təbəqələri üçün əlçatanlığı.

Əslində bu işin məqsədi təhsil müəssisəsinin mövcud vəziyyətini və onun uğurlu fəaliyyətinin dövlətin tərəqqisinin qlobal istiqamətləri, xüsusən də davamlı iqtisadi inkişafla əlaqəsini təhlil etməkdir. Problemin tədqiqinin mühüm aspekti Azərbaycanda təhsil sisteminin təkmilləşdirilməsi siyasətinin dünyanın aparıcı iqtisadi gücləri ilə birgə tətbiqinin səmərəliliyinin müxtəlif göstəricilərinin nəzərdən keçirilməsi idi və tədqiqatın diqqəti daha da genişləndi: göstəricilərin hesablanması üçün müxtəlif metodologiyalar və Azərbaycanda təhsil sisteminin iş mexanizmi ilə əlaqədar yaranan daha dərin sosial və siyasi məsələlər. Demokratik ölkələrin klassik modellərində təhsil müəssisəsinə mühüm rol verilir, onlar ona mümkün qədər çox vətəndaşın çıxışını təmin etməyə çalışırlar.Bu dövlətə niyə lazımdır? Birincisi, təhsilli əhali inkişafa can atan demokratik ölkələrin siyasi gücünün əsasını təşkil edir. İstər peşəkar, istərsə də siyasi bir sahədə proseslərin ümumiyyətlə necə getdiyini bilmədən, 0səsvermə və ya mövqeyi müdafiə etməklə ifadə olunan səriştəli rəyə sahib olmaq mümkün deyil. İkincisi, təhsil əxlaq, təhsil, asudə vaxt və s. kimi əlaqəli institutların inkişafına imkan verir. Bu, əhalinin vəziyyətinin keyfiyyətcə yaxşılaşmasından, onun yaxşılaşdırılmasından və dəyərlər sisteminin inkişafından danışmağa imkan verir. Üçüncüsü, əgər bir ölkə insanların (xüsusən də istedadlıların) əqli qabiliyyətlərinə önəm verirsə, yəni insan özünü peşəkar kimi dərk edə bilirsə, o zaman cəmiyyətdə nəinki mövqeyinin yaxşılaşması ehtimalı, həm də müsbət nəticələri var. onun əməyi, onun cəmiyyət və iqtisadiyyat üçün faydası xeyli artır. Son nöqtəyə daha yaxından nəzər salaq. İqtisadiyyat nöqteyi-nəzərindən ixtisaslı işçi qüvvəsi miqyasda artan gəlirlərə malikdir. Xərclərə - təhsilə pul ödəmək üçün vaxt və pul çəkmək lazımdır. Əgər birincidə dövlət kömək edə bilmirsə, ikincisində başqa şeylər var. Dövlətin bütün vətəndaşlarının ibtidai təhsilə çıxışını təmin etmək öhdəliyinə heç bir şübhə yoxdur, lakin ümumilikdə pulsuz təhsilin təmin edilməsinin dövlətin üzərinə düşən vəzifə olduğunu söyləmək düzgün olmazdı, çünki müxtəlif ölkələrdə keyfiyyətli ali təhsilə münasibət fərqlidir. Belə ki, bir çox sosial və iqtisadi göstəricilərə görə lider olan ABŞ-da ali təhsil yalnız ödənişli əsaslarla verilir və onun dəyəri Azərbaycan və hətta Avropa ölkələrindəki analoji proqramlardan dəfələrlə bahadır. İxtisaslı kadrların itirilməsi insan kapitalına əsaslanan texnoloji inkişaf ehtimalını əhəmiyyətli dərəcədə azaldır. Ödənişli təhsilin dövlət tərəfindən maliyyələşdirilən təhsillə bərabər olması, eləcə də qiyabi təhsilin yaranması bir tərəfdən əhalinin təhsil səviyyəsinin yüksəlməsinə səbəb olmalı idi, çünki bu, əvvəllər ali təhsil almaq üçün ali təhsil almaq imkanı olmayanlar əhalinin təhsil səviyyəsinin yüksəlməsinə səbəb olmalı idi. Digər tərəfdən, ödənişli və qiyabi təhsilin payında tədricən artım müşahidə olunur, çünki diplomu olmayan insanların

damğalanması nəticəsində təhsilə şəxsi həvəsi olmayan insanların qarşısına məqsəd qoyulur - “daha yüksək təhsil almaq sosial fərqlilikdən və aşağı təbəqəyə düşməkdən qaçmaq üçün təhsil”. Amma əsas amillərdən biri Azərbaycanda məcburi hərbi xidmətdir. Bunun nəticəsidir ki, gənclər məktəbi bitirdikdən sonra ali məktəbə daxil olmaq niyyətində olmasalar da, hansı peşəni seçmək istədikləri barədə heç bir təsəvvürə malik olmasalar da, əslində həmin sahənin mütəxəssisi olmaq üçün deyil, təhsil müəssisələrinə getməyə məcbur olurlar. Bu onları maraqlandırır, amma xidmətə getməmək üçün. Yuxarıda göstərilən amillərin nəticəsi tələbələr arasında akademik göstəricilərin və oxumaq motivasiyasının əhəmiyyətli dərəcədə azalması, universitetlərin kommersiyalaşdırılması və ali təhsilin özünün və onun cəmiyyətdəki dəyərinin nüfuzdan düşməsidir. Əgər ali təhsili insanın həyatının ilkin mərhələsində peşəkar və sosial pillələrdə yüksəlməyə başlamağa imkan verən kapital hesab etsək, o zaman Azərbaycannın regionları arasında imkanlar və əlçatanlıq bərabərsizliyi ilə üzləşirik. Təhsil müəssisələrinin modernləşdirilməsində və iqtisadiyyatın rəqəmsallaşdırılmasında müasir qlobal tendensiyalarla əlaqədar olaraq, Azərbaycanın mövcud liderlərlə müqayisədə mövcud mövqeyinin çatışmazlıqları və ön sıralara çıxmaq və siyasi, sosial və iqtisadi sahələri inkişaf etdirmək üçün onların aradan qaldırılması zərurəti yaranır.

**NƏTİCƏ.**

Yuxarıda göstərilən amillərin nəticəsi tələbələr arasında akademik göstəricilərin və oxumaq motivasiyasının əhəmiyyətli dərəcədə azalması, universitetlərin kommersiyalaşdırılması və ali təhsilin özünün və onun cəmiyyətdəki dəyərinin nüfuzdan düşməsidir. Əgər ali təhsili insanın həyatının ilkin mərhələsində peşəkar və sosial pillələrdə yüksəlməyə başlamağa imkan verən kapital hesab etsək, o zaman Azərbaycanın regionları arasında imkanlar və əlçatanlıq bərabərsizliyi ilə üzləşirik.

Təhsil iqtisadi inkişafda mühüm rol oynayır və məhsuldarlığa, ticarətə, texnologiyaya, səhiyyəyə, gəlir bölgüsünə və ailə quruluşuna əhəmiyyətli təsir göstərir. Təhsil ev təsərrüfatının keyfiyyət səviyyəsini, ailədə, insanlarda formaları inkişaf etməsinə kömək edir, intizam, fədakarlıq, yaxşı davranış, tolerantlıq, ünsiyyətcillik, yeni məlumat mənbələrinə can atmaq və s. kimi şəxsi keyfiyyətləri formalaşdırır. Buna görə inkişaf etmiş keyfiyyətlər insanın öz fikirlərini ifadə edərək sosial mühitə uyğunlaşması daha yaxşıdır və nöqteyi-nəzərdən həmfikir insanlar, həm də əhəmiyyətli bir status qazanın cəmiyyət tapın. İnsan kapitalını formalaşdıran təhsildir. İnkişaf etmək, dəyişmək və informasiya cəmiyyətinin vahidinə çevrilmək istəyən ailələr, təhsilə daha çox sərmayə qoymalıdırlar. Eyni zamanda həyati əhəmiyyət kəsb edir siyasi, sosial və iqtisadi məqsədlərə çatmaq üçün əldə edilən biliklərdən istifadə etmək vacibdir. Qazanılan biliklər rəfdə qalmamalı, lakin sosial məqsədləri həyata keçirmək üçün onlardan istifadə edilməlidir. İçində Zaman ailədə inkişafa və dəyişikliklərə doğru uzun bir yol keçəcək. İnkişaf etmək və dəyişmək istəyən icmalar yeni məhsullar istehsal etməlidir bilik və daim yeni məhsulları izləyin. Müasir dünyada təhsil şirkətlərin dünya bazarlarında uğur qazanmasının əsas amilidir, iqtisadi artıma təsir edir və ölkənin elmi-texniki potensialının artmasına kömək edir. Təhsil səviyyəsi və toplanmış biliklər rəqabət üstünlükləri müəyyənləşdirir .

**ƏDƏBİYYAT**

2. Беккер Г. С. Человеческое поведение: экономический подход. М.: ГУ ВШЭ, 2003. 672 с. ISBN 5-7598-0173-2
3. Бургиньон Ф. Влияние экономического роста на социальные структуры / ред. Ф. Агрионе, С. Н.Дюрлауф. Справочник экономического роста, 1B. Амстердам: Elsevier, 2005. С. 1701–1748.
4. Бургиньон Ф., Моррисон С. Распределение доходов, развитие и внешняя торговля: Анализ // Европейский экономический обзор. 1990. Т. 34, № 6. Р. 1113–1132.
6. Минсер Д. Прогресс в области анализа человеческого капитала при распределении доходов. Нью-Йорк, 1974. 202 с.
7.Лукас Р., Стокей Н. Л., Прескотт Э. С. Рекурсивные методы в экономической динамике. Гарвардский университет Пресс, 1989. 157 с.
8. Псахаропулос Д., Патринос Г. Борьба с нищетой среди коренного населения Латинской Америки: новые задачи системы образования // Перспективы. 1996. Т. XXY, № 4. С. 133–144.
9. Псахаропулос Д. Вклад образования в экономический рост. Международные сравнения // Экономика образования. 1999. № 1. С. 62–71.
10. Роберто П. Рост, распределение доходов и демократия: О чем говорят данные // Рост. 1996. Т. 1, № 2. С. 149–187.

# RESEPTİV NİTQ BACARIĞI KİMİ DİNLƏMƏNİN ƏHƏMİYYƏTİ

**AYSEL MƏLİKOVA**
Bakı Slavyan Universiteti
Magistratura
*aysel_tagizade@mail.ru*
BAKI, AZƏRBAYCAN

**XÜLASƏ**

Dil öyrətmə ilə əlaqədar aparılan tədqiqatlar göstərir ki, ikinci bir dili tədris edərkən onun bütün texnikasını öyrətməliyik. Dinləmə, danışma, oxuma və yazmadan ibarət olan nitq bacarıqlarını öyrədərkən məqsəd şagirdin rahat ünsiyyət qurması olduğu üçün bu bacarıqların birini digərindən ayırmayaraq eyni səviyyədə tədris etmək lazımdır. Təəsüf ki, bir çox dil tədrisi proqramlarında oxuma və yazmaya üstünlük verildiyi halda, danışma və dinləməyə lazımi əhəmiyyət verilmir.

Dinləmə bacarıqları produktiv bacarıqların əsasını təşkil edən reseptiv bacarıqlar kimi başa düşülür. Ünsiyyət qurmaq üçün lazım olan oxuma, yazma və danışma kimi bacarıqlar üçün də əsas bacarıq hesab olunur. Danışa bilmək üçün əvvəlcə danışılanı yaxşı başa düşməyimiz lazımdır. Bunun üçün də effektiv bir dinləmə olmalıdır. Bəs dinləmə bacarıqlarının daha produktiv olmasına necə əmin ola bilərik?

Bu məqalədə müəllif reseptiv nitq bacarıqlarından biri olan dinləmə, dinləmənin növləri, dinləmə metodları və şagirdyönümlü dinləmə haqqında mövzulara toxunaraq problemləri araşdırıb həll yollarını irəli sürəcək.

**AÇAR SÖZLƏR: Nitq bacarıqları, reseptiv nitq bacarıqları, dinləmə**

## GIRIŞ

İkinci dilin öyrədilməsi ilə əlaqəli illərlə davam edən mübahisəli fikirlər vardır. Bəziləri müəllimyönümlü tədrisi üstün tutduğu halda bəziləri də son illərdə şagirdyönümlü tədrisin əhəmiyyətli olduğunu vurğulayır. Şagirdyönümlü tədrislə birlikdə dil öyrətmə ilə bağlı nəzəriyyələrdə də dəyişikliklər meydana gəlmişdir. Morliyə görə (1991) eyni zamanda "dil funksiyasının strukturundakı əsas vurğudan ünsiyyəti diqqət mərkəzinə çevirən vurğuya keçid olmuşdur." Yəni, sadəcə dilin quruluşunu öyrətməklə dil bütünlüklə öyrədilmir. Eyni zamanda dildən istifadə etməyi də öyrədirlər. Bunu həyata keçirərkən də ənənəvi üsulun əksinə şagirdyönümlü tədris üsulları mənimsənərək bu prosesə daxil edilmiş olur.

Digər bir mühüm müzakirə mövzusu ikinci dilin tədrisi ilə bağlı olan dörd bacarıqdan ibarətdir: dinləmə, danışma, oxuma və yazma. Bəziləri produktiv bacarıqların, yəni danışma və yazmanın prioritet olduğunu iddia etdiyi halda, digərləri isə reseptiv bacarıqların – dinləmə və oxumanın vacib olduğunu deyir. Reseptiv bacarıqlar passiv bacarıqlar kimi qəbul edilir, çünki, bu bacarıqlar zamanı şagirdlərin produktiv olması tələb olunmur – məlumatı qəbul edib və anlamaq tələb olunur. Halbuki, produktiv bacarıqların sayəsində şagirdlər dinləyib anlamaqla yanaşı, danışaraq ya da nəsə yazaraq produktiv ola bilirlər. Bu o demək deyildir ki, reseptiv bacarıqlar produktiv bacarıqlardan daha vacibdir. Dilin bir bütöv olduğunu nəzərə alaraq nitq bacarıqlarının hamısı eyni dərəcədə əhəmiyyətlidir. Amma dilin tədrisində dinləməyə digərlərinə nisbətən bir qədər az önəm verilir.

## TƏDQIQAT METODU

Nunana (1999) görə dinləmə ikinci dilin tədrisində "Sindirella" bacarığıdır. Çox hallarda "böyük bacısı" olan danışma tərəfindən "kiçik" kimi qəbul edilir. Əksər insanlar üçün ikinci dili bilmək sadəcə həmin dildə yazma və danışma bacarıqlarına yiyələnməkdən ibarətdir. Amma danışmaq üçün də qarşı tərəfin nə dediyinə diqqətlə qulaq asmaq lazımdır. Danışan insan hər nə danışsa da, dedikləri qarşısındakı dinləyicinin anladığı qədərdir. Bu səbəbdən, dil tədrisində müvəffəqiyyət əldə etmək üçün dinləmənin çox vacib olduğu nəzərə alınmalıdır.

Morlinin sözlərinə görə 1970-ci illərin tədris proqramlarında oxuma, yazma və danışmayaraq dinləmənin daxil olduğu praqmatik bacarıqlarına fokuslanmağın nəticəsində dinləmənin zəruriliyi özünü biruzə edənə qədər arxa plandan ön plana çəkilməyə başlamışdır. Şübhəsiz ki, bunun bir neçə səbəbi vardır. Rosta görə (Nunan, 2002), dil tədrisində dinləmə vacibdir, çünki, "şagirlər üçün giriş

funksiyasını daşıyır. Bu girişi düzgün formada başa düşməyəndə öyrənmə icra oluna bilməz. Buna görə də danışa bilmək üçün dinləmə çox vacibdir."

Riversə görə (Celce-Murcia, 1991), "Danışma digər bir şəxs tərəfindən qəbul edilmirsə, bu, ünsiyyət sayıla bilməz." Şifahi danışığın başa düşülməsini öyrətmək ünsiyyətin qurulmasına nail olmaq üçün vacibdir. Yəni, dinləmə, bu mənada, digərlərinin dediklərini qavrama bacarığına malikdir. Sarıçobana görə (2001), dinləmə bacarıqları iki hissədə işlənə bilər:




Şəkil 1. Dinləmə bacarıqları

Uillis, dinləmənin başlanğıc səviyyəsində üstünlük verildiyi mümkün mikro-bacarıqları aşağıdakı kimi sıralamışdır:

- İnsanların nə barədə danışacağını təxmin etmək
- Panikaya qapılmadan naməlum sözləri və cümlələri təxmin etmək
- Bir kəsin başa düşməsi üçün şəxsin o mövzudakı biliyindən istifadə etmək
- Əlaqəli mövzuları müəyyənləşdirmək, əlaqəsiz məlumatı rədd etmək
- Əlaqəli mövzuları tutmaq (qeyd etmək, xülasə çıxarmaq)
- Söhbət təyin edicilərin fərqinə varmaq
- Bağlayıcı vasitələr: *Məsələn, kimi və hansı, əlavələr, istinadlar və s.*
- Müxtəlif səsləndirmə tərzi və vurğu istifadəsinin başa düşülməsi: *Məsələn, məna və sosial tənzimləmə üçün ipucu vermək*
- Nəzərdə tutulan məlumatı anlamaq: *Məsələn, danışanın münasibəti və niyyəti.*

Digər tərəfdən, makro dinləmə bacarıqları şagirdlərin bu bacarıqlara nə qədər yiyələndiklərini anlamaqda kömək edir. Beləliklə, makro dinləmə bacarıqları belə izah edilə bilər:

- Xüsusi və ümumiləşmiş məlumatı dinləmək
- Danışanın əsas fikrini anlamaq
- Referalları anlamaq
- Təlimatları anlamaq

Burada da mikro dinləmə bacarıqlarını makro dinləmə bacarıqlarından ayırmaq olmaz. Nəticədə, mikro bacarıqları başlanğıc səviyyədə istifadə olunduğu halda, makro bacarıqlar daha üstün səviyyələrdə dinləməni başa düşmək üçün istifadə olunur.

**İntensiv və ekstensiv (ətraflı) dinləmə.** Şagirdlər necə dinləyəcəklərini bilmirlər. Dinləyərkən nəyi, necə, nə üçün dinlədiklərini bilməlidirlər. Şagirdlər həm intensiv dinləmə, həm də ekstensiv dinləmə ilə bacarıqlarını möhkəmləndirə bilərlər.




**Şəkil 2.** Dinləmənin növləri

Harmer (2001) isə dinləmə materiallarından fərqli dinləmə yollarını təklif etmişdir. Canlı dinləmə olaraq da adlandırılan bu dinləmə növləri aşağıdakı kimidir:

- *Səsli oxuma:* Müəllim sinifdə səsli oxumağı özü yerinə yetirir. Bu dinləmə növü şagirdə yazılı mətnin səsli eşitmək imkanı verir. Burada, müəllim lazım bildiyi təqdirdə oxuduğu hissəni canlandıra da bilər.
- *Hekayə söyləmə:* Müəllim başqa bir dinləmə materialı olaraq hekayə söyləməyə üstünlük verə bilər. Hekayəni söyləyərkən dayanıb şagirdlərdən sonra nə olacağını təxmin etmələrini istəyə bilər.
- *Müsahibə:* Burada müsahibə suallarının şagirdlər tərəfindən hazırlanmasını istənilsə, bu zaman sözügedən dinləmə ən ruhlandırıcı dinləmə məşğələlərindən birinə çevrilə bilər. Növbəti sualı verməkdən ötrü qarşı tərəfin cavabını yaxşı dinləməsi lazımdır. Müsahibə edilən şəxs eyni və ya digər sinifdən də ola bilər.
- *Dialoqlar:* qıraqdan sinfə gətirilən şagirdlə ikili söhbət məhsuldarlığı artıra bilər. Beləcə, şagirdlər dinləmə ilə birlikdə aralarındakı ünsiyyəti izləmək imkanına da nail olurlar.

Dinləmənin bu növlərini məşq etdirərkən, müəllimin də üzərinə böyük məsuliyyət düşür. Müəllimin burada ən əsas işi dinləmə məşğələsini düzgün təşkil etməsidir. Dinləmə əsnasında lazım gələrsə, dinlənilən materialı dayandırıb suallar verə bilər, şagirdlərdən təkrar etmələrini istəyə bilər, ya da, şagirdlərə rollar verərək özlərinin də aktiv olmasını təmin edə bilər. Müəllim həmçinin, şagirdlərə lazımi geri dönüş etməsini də nəzərə almalıdır.

Ekstensiv dinləmə isə daha çox sinifdən kənarda həyata keçirilir və müəyyən dinləmə sürətini artırmağa yönəlmişdir. Tədris edilən dilin lüğət və qrammatikasının öyrənilməsi nəticəsində ünsiyyət qurulursa, dinləmə sürətinin nəzərə alınması vacibdir. Bunun da ən yaxşı yolu oxumaq və ya dinləməkdir. Şagirdlər dinləyərkən başa düşmə tezliyini izləyə bilərlər. Dinləmə məşğələləri düzgün və effektiv bir şəkildə və düzgün səviyyədə həyata keçirildiyi təqdirdə şagirdlər başa düşmək üçün sözlərə və cümlələrə fokuslanacaqlar, beləliklə də dinləmə məşğələlərinin dilin inkişaf etdirilməsində faydası olacaqdır. Başa düşmə sürəti səviyyəyə görə də fərqli ola bilər. Başlanğıc səviyyədə başa düşmə bir neçə sözlə kifayətləndiyi halda növbəti səviyyələrdə söz, qrammatika və qarışıq cümlələrdə asanlıqla başa düşülür.

**Dinləmə metodları.** Efektiv və tam bir dinləmənin həyata keçirilməsi üçün şagirdlərin istifadə etdiyi bəzi metodlar vardır. Dinləmənin isə 3 əsas üsulu vardır:

1. *Koqnitiv üsul:* eşitdiyimiz şeyləri başa düşmək üçün istifadə olunur.
2. *Metakoqnitiv üsul:* başa düşdüyümüzü planlamaq, izləmək və dəyərləndirmək üçün istifadə olunur.
3. *Sosial-emosional üsul:* ya başa düşmə səylərimizə başqalarını daxil etmək ya da başa düşmək üçün özümüzü cəsarətləndirdiyimiz üsuldur (Lynch, 2009).

Koqnitiv üsullar eşidilən şeyi başa düşməyə yönəlmişdir. Dinlənilən parçadan nəticə çıxarmaq ya da şəxsi təcrübələrə əsaslanaraq detallandırmaq bunlardan bir neçəsidir. Metakoqnitiv üsullar başa

düşməyə yönəlmiş planlı üsullardır. Məsələn, müəllim sinfə "müəyyən hissələrə fokuslanaraq" ya da "fiziki xüsusiyyətlərlə bağlı şəxsləri tapın" kimi təlimat verərək şagirdlərdən qulaq asmalarını istəyə bilər. Sosial-emosional üsullarda isə şagirdlər dinləyərkən qarşı tərəfdən təkrar etmələrini ya da sürəti azaltmalarını istəyə bilərlər. İstifadə olunan istənilən üsulun məqsədi başa düşməni asanlaşdırmaqdır.

**Şagirdyönümlü dinləmə.** Son illərin araşdırmaları göstərir ki ənənəvi öyrətmə və öyrənmə metodlarının yerini müasir öyrənmə metodları tutmuşdur. Bu metodlarda əsas məsələ şagirdin öyrənmə prosesinin içərisinə daxil edilməsidir. Yəni, bu prosesdəki cavabdehliyi həm müəllim həm də şagird birlikdə öhdəsindən gəlirlər. Şagird passiv şəkildə oturub verilən məlumatı təhlil etmək yerinə şəxsi öyrənmə prosesinin məsuliyyətini üzərinə götürür. Tudor ikinci dilin tədrisi ilə bağlı kitabında şagirdyönümlülük barədə bunları qeyd etmişdir:

Şagirdə təhsil vermənin sadəcə müəllimin şagirdin sahib olmadığı məlumatı və bacarıqları öyrətməkdən ibarət olmaması və bu prosesin qarşılıqlı olması effektiv hesab edilir. Bundan başqa, müəllim və şagird tədris prosesində bilik və anlayışlarını dəyişdirdikləri bir forum yaratmağı da təmin edir və beləliklə də, şagirdyönümlü yanaşmanın mərkəzində dil öyrənmənin qarşılıqlı olduğu üzə çıxır. (Lynch, 2009).




**Şəkil 3.** Şagirdyönümlü tədris prosesi

Yuxarıdakı şəkildə də göstərildiyi kimi, şagirdyönümlü tədrisdə şagird bu prosesin tam mərkəzindədir. Nə öyrədilir, necə öyrədilir, hansı səviyyədə öyrədilir və öyrədərkən hansı dərs vəsaitlərindən istifadə olunur, bu kimi bir çox sualların cavabını araşdırmaqda şagirdlər də söz sahibinə malikdirlər. Şagirdlərlə şəxsi tədris prosesi ilə bağlı öhdəlikləri paylaşaraq müəllim də şagirdlərini sorğu-sual etmədən verilən məlumatı almaq əvəzinə tənqidi düşünməyə təşviq edir. Kinney və Coombeyə görə (1999), dilin tədrisində şagirdyönümlü yanaşma şagirdin öyrənmə prosesində mərkəzdə olması fikrinə əsaslanır. Şagirdlər əsas olaraq yaradıcı bacarıqları, maraqları, keçmiş məlumatları, keçmiş təcrübələri, motivasiyanı, sorğulanmış ehtiyacları baxımından gətirdikləri sinif təcrübələrindən öyrənirlər. Onlar məlumatı passiv şəkildə əldə etmək əvəzinə aktivdirlər. Sinifdə qərar verən rolunu yerinə yetirməklə nə öyrəniləcək, hansı praktiki növlərlə öyrəniləcəyini və nə səviyyədə öyrəniləcəyinə qərar verirlər.

**NƏTİCƏ**

Nəticə olaraq Sarıçobanın (2001) fikrinə əsaslanaraq, qeyd etmək olar ki, "dinləmə danışma qədər aktivdir və hətta daha da çətindir. Diqqət, düşüncə, fikir bildirmə və xəyal etməyə vadar edir." Şagirdlərin dinləmə bacarıqlarını inkişaf etdirmələri üçün aşağıda qeyd olunanlara riayət etmələri vacibdir:

- Müsbət bir mövqe qazanmaq;
- Ehtiyatlı olmaq;
- Diqqət dağınıqlığının qarşısının almaq;
- Danışanın məqsədinə uyğun dinləmək;

- Əvvəlcə olanları öyrənmək;
- Olabiləcəkləri təxmin etmək;
- Tamamlayıcı materialları dəyərləndirmək;
- İfadə edilə bilməyən ipuclarını (bədən dili) araşdırmaq.

Sinfə gətirilən dinləmə parçaları da ayrı bir əhəmiyyətə malikdir. İstifadə olunan dinləmə materiallarının seçimində onlara real mövzuların olmasına və öyrədilən dilin mədəni xüsusiyyətlərini də diqqət etmək lazımdır. Belə olduqda, ikinci planda qalan dinləmə bacarığına qarşı şagirdləri ruhlandırmaq və onların dinləmə məşğələlərinə üstünlük verərək digər nitq bacarıqları ilə birlikdə effektiv dil tədrisi prosesini həyata keçirmiş olarıq.

**ƏDƏBİYYAT SİYAHISI**

12.Benson, P. (2001). Teaching and researching autonomy in language learning. London: Longman, 47–62.

13.Coombe, C & Kinney, J. (1999). Learner-Centered Listening Assessment, 101–117.

14.Durak Üğüten, S. (2009). The Use of Writing Portfolio in Preparatory Writing Classes to Foster Learner Autonomy. Unpublished PhD thesis, Çukurova University, Adana, 73–77.

15.Durak Üğüten, S. (2015). Öğrenen Özerkliği (Learner Autonomy). Dil Ögretimi, 15-34.

16.Harmer, J. (2001). The Practice of Language Teaching. England, 121-133.

17.Köse, N. (2006), "Effects of Portfolio Implementation and Assessment on Critical Reading and Learner Autonomy of ELT students", PhD Thesis, Çukurova University, The Institute of Social Sciences, Adana, 92-98.

18.Lynch, T. (2009). Teaching Second Language Listening. Oxford, 117-125.

19.Morley, J. (1991). Listening Comprehension in Second/Foreign Language Instruction. In Murcia-Celce, M. (Eds), Teaching English as a Second or Foreign Language, Boston, Massachusetts, 131-144.

20.Nunan, D. (1999), Second Language Teaching & Learning: Boston, U.S.A., 45-53.

21.Nunan, D. (2002). Listening in Language Learning. In Jack C. Richards & Willy A. Renandya (Eds), Methodology in Language Teaching: An anthology of current practice, USA., 78-91.

22.Sarıçoban, A. (2001), The Teaching of Language Skills: Ankara, 82-88.

# XARİCİ DİLİN TƏDRİSİNDƏ ƏNƏNƏVİ VƏ YENİ METODLAR

**AYSEL MƏLİKOVA**
Bakı Slavyan Universiteti
Magistratura
*aysel_tagizade@mail.ru*
BAKI, AZƏRBAYCAN

**XÜLASƏ**

Öyrənilməsi nəzərdə tutulan dilin qrammatik qaydalarını öyrənmək o dili tam öyrənmək demək deyildir. Keçmiş dövrlərin canlı və müasir dilləri sayılan ingilis və fransız dillərinin ölü dil – latın dilinin qrammatik qaydalarına əsasən öyrədilməsi üsulu ilə keçirilən müəllimyönümlü tədris forması şagirdlərə lazımi səviyyədə danışıq bacarıqlarına yiyələnməyə kömək etmirdi. Bu səbəbdəndir ki, illərdir xarici dil tədrisində iz qoymuş və təsiri bu günə qədər davam etmiş üsullarla yanaşı, alternativ xarici dil tədrisi metodlarından da istifadə edilir.

Dilin tədrisində istifadə olunan metodlar arasında dəqiq bir sərhədin olmadığını və ola bilməyəcəyini nəzərə alaraq 19-cu əsrdən etibarən bu günümüzə qədər gəlib çatmış və qəbul edilmiş

dil öyrətmə üsullarından, yeni cərəyan və yanaşmalardan ən mühümləri müzakirə mövzusu olub, müəllif bu məqalədə linqvistik araşdırmalar nəticəsində tarix boyu dəyişən və formalaşan dil tədrisi metodlarını nümunə gətirərək müqayisə edəcək.

**AÇAR SÖZLƏR: qrammatik tərcümə metodu, birbaşa metod, müasir metodlar**

## GİRİŞ

Ümumiyyətlə, dil insanlarla yazılı və ya şifahi şəkildə ünsiyyət qurmaq üçün öyrənilir. Bu, həm ana dili, həm də xarici dillər üçün keçərlidir. Hədəf mədəniyyətdəki şəxs özünü olduğu mühitdə dilin qrammatik xüsusiyyətlərinə uyğun şəkildə ifadə edə bilmək üçün lazımi linqvistik bacarıqlara nail olmağı qarşısına məqsəd qoyur. Bunun üçün tələb olunan dil biliyinə sahib olmaq üçün tarix boyu müxtəlif üsul və yanaşmalar meydana çıxmışdır. Xüsusilə, 20-ci əsrin əvvəllərindən etibarən qrammatik tərcümə üsulu ilə başlayıb 80-ci illərdə geniş vüsət alan mədəniyyətlərarası yanaşmadan sonra bu proses davam etmiş və dillərin bir qayda olaraq tədrisi iddiası ilə yeni yanaşmalar ortaya çıxmışdır. "İnsanların nəyi, necə öyrənməli və ya öyrətməli olduqlarını bilməməsi böyük xaosa səbəb olur" (Hismanoglu, 2000). Bu səbəbdən də, dil öyrənmə prosesi illər ərzində qazanılan təcrübələr, texnoloji tərəqqi və artan tələblər nəticəsində inkişaf edib və dəyişib.

## TƏDQİQAT METODU

Qeyd edildiyi kimi, tarix boyu dil tədrisi həmişə maraq dairəsində olduğu üçün öyrətmə və öyrənmə üsulları da bu prosesi asanlaşdırmaq məqsədilə bu günümüzədək formalaşmışdır. Ən qədim metodlardan biri **qrammatik tərcümə metodu**dur. Bu metodda qrammatika ön plandadır. Belə ki, "öyrənəcəyi dilin qrammatik xüsusiyyətlərini və qaydalarını mənimsəyən şəxs həmin dildə də mahir olacaq" anlayışı hökm sürür. (Memiş, 2013). Bu metodun məqsədi tələbənin xarici dildəki mətni öz ana dilinə və ya öz ana dilində yazılmış mətni xarici dilə tərcümə etmək bacarığına nail olmasıdır.

Bu metoddakı ən böyük səhv, 19-cu əsrdə elit bir cəmiyyət kimi görünən lisey şagirdlərinə xarici dil öyrətmək məqsədilə, latın və qədim yunan dilinin qrammatik qaydalarına riayət edən və həmin dövrdə də yazılı və şifahi ünsiyyətdə istifadə olunan ingilis və fransız dillərini öyrətməyə çalışması idi.

Lisey şagirdlərinin intellektual inkişafı prioritet hesab olunduğundan xarici dillərin tədrisində belə bir mövqe formalaşmışdı. Şəxsiyyətin əqli inkişafı dil öyrənmə prosesinin ayrılmaz hissəsi kimi qəbul edildiyindən müvafiq ölü dildə yazılmış ədəbi əsərlərin yalnız yazılı formada mövcud olmasına baxmayaraq, onların ana dilinə tərcüməsinə böyük əhəmiyyət verilirdi. Bundan əlavə, ingiliscə və fransızca öyrənilməsi lazım olan dillərin ölü latın və qədim yunan dilləri qarşısında "yaşaması" üçün onların qaydalarından və həmin dillərdə yazılmış köhnə mətnlərin tərcüməsi nəticəsindən əldə edilən biliklərdən bəhrələnməyin lazım olduğuna inanılırdı. Bu məqsədə nail olmaq da o dövrün dil öyrətmə yanaşmasına uyğun eyni metod və tədris texnikasından istifadə etməklə mümkün olmuşdur.

Bu metoda qarşı ən böyük tənqidlər, daha dəqiq desək, bu metodun yanlış tərəfi kimi qeyd olunan və növbəti metodun ortaya çıxmasına zərurət yaradan amilləri aşağıdakı kimi ümumiləşdirmək olar:

Dil tədrisində ən böyük yanlış fikir ondan ibarətdir ki, dildən aktiv şəkildə istifadə etmək üçün təkcə qrammatikanın öyrədilməsi kifayət olacağı düşüncəsi idi.

- Xarici dil tədrisində hədəf auditoriya oxşar maraqlara və təhsil imkanlarına malik eyni səviyyəli lisey şagirdləri olduğu üçün dil tədrisində belə vahid istiqamət mənimsənilirdi.
- Tədris prosesində qrammatik qaydaların köçürülməsi yetərli hesab olunduğundan, konkret kontekst olmadan, amma eyni qrammatik qaydanı izləyən cümlələr dalbadal verilməklə hədəf auditoriyanın dil bacarıqlarını qazanacağı düşünülürdü.

Məsələn, ingilis dilində "that" bağlayıcısı haqqında dərs keçərkən heç bir konteksdən asılı olmayaraq, sərbəst şəkildə sadalanan və məqsədin yalnız müvafiq qrammatik qaydanı öyrətmək olduğunu göstərən aşağıdakı kimi anlaşıqlı cümlələr nümunə olaraq verilirdi:

1. *I know that it is right – Mən bilirəm ki, bu, doğrudur.*
2. *It is convicted that the world is round – Dünyanın dairəvi olduğuna inanılır.*
3. *The child said to his mother that he is thirsty – Uşaq anasına susadığını dedi.*

- Şagirdin, eyni zamanda, intellektual inkişafı prioritet olduğu üçün təkcə ədəbi deyil, mətnlərin hədəf dildən ana dilinə və ana dilindən hədəf dilinə tərcüməsinə önəm verilir, canlı, original dilə malik mətnlər dərs vəsaiti kimi istifadə olunmurdu.

- Tərcümə etmək istisna olmaqla, bütün dərs qrammatikanın öyrədilməsinə həsr edilirdi, şagirdin yazılı və ya şifahi olaraq özünü ifadə etmə bacarığına nail olması məqsəd kimi əsas götürülmürdü.

**Birbaşa metod.** Bu metodun qrammatik tərcümə metoduna qarşı kəşf edildiyi və eyni zamanda da ondan sonra gələn digər metodlara da zəmin yaratmışdır. 20-ci əsrin birinci rübündə xarici dil tədrisində yeni hədəflər qoyan bu metodun əsas məqsədi xarici dil öyrənən fərdlərin zamanla dildən aktiv şəkildə istifadə edə bilmələrini təmin etmək idi.

Başqa sözlə desək, bu üsulda nitq bacarıqlarının inkişafına xüsusi önəm verilməkdədir. Qrammatik tərcümə metodu bu baxımdan ciddi tənqid olunurdu və dərs dilinin şagirdlərin ana dili olması böyük çatışmazlıq kimi ifadə edilirdi. Belə bir fikir qəbul edilirdi ki, sinifdə dil tədrisi prosesindən ana dilin çıxarılmasıyla şagirdlər öyrəndiyi xarici dili eynilə ana dilini öyrənmə prosesində olduğu kimi təbii şəkildə öyrənə biləcəklər.

Qeyd edildiyi kimi, birbaşa metodun tərəfdarlarının qrammatik tərcümə metodunu uğursuz hesab etmələrinin ən mühüm səbəbi müasir dilləri ölü dillərin qaydaları ilə öyrətməyə çalışmaları idi. Birbaşa metodun zəruriliyini müdafiə edən alimlər belə yanaşmanı məntiqsiz və qəbuledilməz hesab edirdilər.

Qrammatik tərcümə metodundan imtina edilməsinin başqa bir səbəbi də o dövrün siyasi və iqtisadi inkişafın insanları şifahi dildən istifadə etməyə məcbur etməsi idi. Xüsusilə, ticarətlə məşğul olanlar hesab edirdilər ki, beynəlxalq arenada mövcud olmaq üçün bir dildə şifahi ünsiyyət qura bilmə bacarığının olması vacibdir. Bu yanaşmanın tərəfdarı olan dil üzrə müəllimlər də qrammatika tədrisini dil tədrisi kimi qəbul edərək bu məqsədə çatmağın və kütlənin dil öyrənmə ehtiyacını ödəməyin mümkünsüzlüyünü bildirirdilər.

Yeni anlayışa görə, xarici dil dərsləri ana dilində deyil, tədrisi nəzərdə tutulan xarici dildə aparılmalıdır. Bu səbəbdən də ana dili dil tədrisi prosesindən tamamilə çıxarılmalı idi. Beləliklə, şagirdlərin şifahi dildən istifadəsi baxımından özlərini istədikləri kimi təkmilləşdirə biləcəkləri düşünülürdü. Çünki, şagird hər hansı bir linqvistik mövzuda özünü ifadə etməyə borclu olduğunu hiss etdikdə, öyrənmək istədiyi xarici dildə danışmalı olacaqdı. Bu yanaşma da qrammatik tərcümə metodunun tədris forması olan müəllimyönümlü tədris forması ilə tamamilə əks idi. Birbaşa metodun ən mühüm prinsiplərindən biri isə şagirdin dərsdə müstəqil fəaliyyət göstərməsini nəzərdə tutan yanaşma idi (Littleüood, 1989).

**Seçmə metodu.** Qrammatik tərcümə metodundan başlayaraq bütün məlum dil öyrətmə üsullarının əvvəlki yanaşmanın çatışmazlıqlarını və ya xətalarını aradan qaldırmaq məqsədi ilə yaradıldığı üçün deyə bilərik ki, hər bir mədəniyyətə və dil səviyyəsinə uyğun ümumi bir dil öyrənmə üsulu yoxdur və olmayacağı da aşkardır. Buna əsaslanaraq, hər bir metodun müəllim tərəfindən müsbət hesab edildiyi və dil tədrisi prosesi üçün hədəf auditoriya üçün zəruri olan elementləri seçərək qarışıq metod yaradılmışdır. Yəni, bu üsulu tək bir üsul kimi görməkdənsə, onu qarışıq və ya müxtəlif üsullar kimi nəzərdən keçirmək daha doğru olar. Hengirmen (2006), qrupun öyrənmə səviyyəsinə və ya məqsədinə uyğun olaraq müəllimin istənilən metodun uyğun və üstünlüklərindən istifadə edəcəyini bildirir.

Dil dərslərində audio və vizual elementlərin mühüm rol oynadığını nəzərə alaraq seçilən metodlara da bunların da daxil edilməsi vacibdir. Nəzərə alınmalıdır ki, hər hansı bir xarici dildən həmin dildə yazılı və ya şifahi ünsiyyət qurmaqdan ötrü istifadə edilir və bu məqsədə çatmaq üçün hədəf dili əks etdirən vizual və ya audio materiallara hər zaman ehtiyac duyulur.

Dərsdə hər hansı yeni bir mövzuya başlamazdan əvvəl nəzərdə tutulan hədəfin nə olduğu müəyyən edən bu metodda köhnə mövzuların yeni tədris olunacaq mövzularla əlaqəsi göstərilməklə ətraflı şəkildə izah edilir (Doğan, 2012).

**Təklif metodu.** Amerika və Almaniyada daha çox qəbul edilən bu dil öyrətmə metodu, həm də Bolqar Psixoloqu Georgi Lozanovun dil tədrisinə təqdim etdiyi metod kimi tanınır. Bu metodun əsas məqsədi tələbənin qısa müddət ərzində xarici mədəniyyətin gündəlik dilində ünsiyyət qura biləcək bacarığına nail olmasından ibarətdir. Bu məqsədə çatmaq üçün şagirdin uyğun tədris mühiti ilə təmin edilməsi prioritet hesab olunur. Ən vacib nəzərə alınmalı amillər isə sinif otağının işıqlı olması, müəllim-şagird münasibətlərinin avtoritarizmdən tamamilə uzaq olması, şagirdlərin bir-birilərinin

üzünü yaxşı görə bilmələri üçün dairəvi forma yaradaraq rahat oturacaqlarda əyləşmələri, stresdən uzaq bir öyrənmə mühitini yaratmaqdır.

Bu üsulla keçirilən dərs zamanı müəllimlərin dominant rəhbərliyi altında dil tədrisi prosesində iştirak edən şagirdlər öz utancaq davranışlarını bir kənara qoyub, yeni bir peşə, yeni ad, daha dəqiq desək, yeni bir şəxsiyyət formalaşdırmaqla bu prosesi tamamlayırlar. Bu dəyişiklik şagirdin özünü rahat və özgüvənli hiss etməsi üçün xüsusilə zəruri hesab olunur.

Amerikalı Psixoloq Asher tərəfindən inkişaf etdirilən **tam fiziki cavab metodu**nda dil təhsili ilə hərəkət, daha doğrusu, fiziki bir fəaliyyət kimi görünür və arzuolunan dil səviyyəsinə çatmaq üçün dil və hərəkət bir-birini tamamlayan iki element kimi qiymətləndirilir. İnsanın fiziki hərəkət edərək dili daha qalıcı öyrənə biləcəyi fikri qəbul edilir. Müəllimin "Put the book on the table! / Kitabı stolun üstünə qoyun!" tələbinə cavab olaraq şagirddən gözlənilən fiziki reaksiyanı göstərməsi və kitabı stolun üzərinə qoyması gözlənilir. Aşer bu fikirdədir ki, böyüklərin xarici dil öyrənmə prosesi uşaqların ana dilini öyrənmə prosesinə bənzəməlidir. Onun fikrincə, uşaqlar danışmağa başlamazdan əvvəl deyilənlərə fiziki reaksiya verərək dil ilə tanış olub öyrənməyə başlayırlar (Hengirmen, 2006).

**Qrup ilə tədris metodu** katolik keşiş olan və eyni zamanda da klinik psixologiya sahəsində çalışan Çarlz Artur Kurran tərəfindən yaradılmışdır. Bu metodun məqsədi şəxsin psixoloji, emosional və kommunikativ bacarığını üzə çıxararaq dil tədrisi prosesində şəxsiyyətlərarası münasibətlərin qurulmasını təmin etməkdir. Bu anlayışa görə, fərdi inkişaf mərhələləri yetkinlik yaşına çatdıqda da öyrənmə prosesinin inkişafı ilə müqayisə edilərək dil tədrisi prosesində faydalı ola bilər. Başqa sözlə, fərd böyüdükcə onun dil öyrənmə prosesi də inkişaf edir və genişlənir. Fərdin müəllimə ehtiyac duyması beş mərhələdə ola bilər. Buna əsasən, dil öyrənən şagird ilk olaraq müəllimdən tamamilə asılı və özünə güvənməyən kimi görünə, daim müəllimin köməyinə və cümlələri öz ana dilinə çevirməsinə ehtiyac duya bilər. Müəyyən linqvistik mərhələdən sonra müvafiq xarici dildə özünü şifahi şəkildə ifadə etməyə çalışan şagird çox vaxt qurduğu cümlələrdən çəkinir və bu səbəbdən də müəllimin köməyinə ehtiyac duyur. Müəllim şagirdə qrammatik cəhətdən səhv olan cümlələri şagird tərəfindən düzgün formada qurmasına kömək edir. Bu əsnada müəllim şagirdin linqvistik inkişaf prosesinə nəzarət edir, şagirdin buraxdığı səhvləri düzəltməyə kömək edərək, bu səhvlərin getdikcə azaldığını müşahidə edir və bu metodun əsas məqsədi olan şagirdin son mərhələyə qədər irəliləməsini təmin edir. Daha az səhv buraxdığını anlayan şagird daha müstəqil hərəkət etməyə başlayır. Müəllimin qurduğu çərçivədə təqdim olunan imkanlar daxilində linqvistik inkişafı mərhələli şəkildə irəliləyən şagird, sinifdə formalaşan qrupdankənar da müvafiq xarici dildə özünü ifadə edərək özünə inam və linqvistik bacarıqlara yiyələnmiş olur. (Demirel, 1990).

**NƏTİCƏ**

Yuxarıda nəzərdən keçirilən yeni tendensiyalarla yanaşı, kommunikativ yanaşmaya bənzəyən və dörd əsas dil bacarığının eyni dərəcədə inkişaf etdirilməsi zəruri olduğunu bildirən "Tapşırıq əsaslı metod" və dil istifadəsi təliminin zəruriliyini vurğulayan "Məzmun mərkəzli metod" da vardır. Bundan başqa, fərd öyrənmək istədiyi xarici dildə danışmağa başlamazdan əvvəl həmin dildə danışılanları başa düşməsi və özünü danışmağa hazır hiss etməsi fikrini daşıyan "Təbii yanaşma", Amerikada inkişaf etdirilib və Təklif metodu ilə böyük paralellərə malik olan, doğru tənəffüs texnikası ilə bədən ritminin fiziki dəyişməsinin əhəmiyyətini vurğulayan və dilin musiqi müşayiəti ilə öyrədilməsinin daha faydalı olacağı fikrini dəstəkləyən "Super öyrənmə", yenə də kommunikativ metodla oxşar cəhətləri olan və əsl məqsədin kommunikativ bacarıqların inkişaf etdirilməsi nəticəsində ünsiyyət və qarşılıqlı əlaqə olduğunu vurğulayan "Dram üsulu ilə öyrənmə metodu" da bu yeni yaranan metodlar sırasındadır.

Son olaraq, belə bir nəticəyə gəlmək olar ki, dil inkişaf etdikcə onun öyrənmə texnikası da özündən əvvəlkinin təkmilləşmiş formasının yaranmasına zərurət yaradır. Bütün bu metodlar isə dil şagirdlərin və müəllimlərin işini asanlaşdırmaqla yanaşı şagirdlərin dili yaxşı qavramalarına kömək edir.

**ƏDƏBİYYAT SİYAHISI**

1. Demirel, Ö. (1990). Yabancı Dil Öğretimi. İlkeler, Yöntemler, Teknikler. Usem Yayınları. Ankara, 43-61.
2. Doğan, C. (2012). Sistematik Yabancı Dil Öğretim Yaklaşımı Ve Yöntemleri. İstanbul, 70-74.
3. Hengirmen, M. (2006). Yabancı Dil Öğretim Yöntemleri Ve Tömer Yöntemi. Ankara, 12-31.
4. Hismanoglu, M. (2000). Language learning strategies in foreign language learning and teaching. The Internet TESL Journal, 6(8), 12-17.
5. Horwitz, E. K., Horwitz, M. B. & Cope, J. (1986). Foreign Language Classroom Anxiety. The Modern Language Journal, 70(2), 125-132.
6. Lightbown, P. M. & Spada, N. (2013). How Languages Are Learned. Oxford, 101-104.
7. Littlewood, T. (1989). Foreign and Second Language Learning. Cambridge, 47-49.
8. MacIntyre, P. D. & Gardner, R. C. (1991). Methods and Results in the Study of Foreign Language Anxiety: A Review of the Literature. Language Learning, 41(1), 282-303.
9. Memiş, M. R.; Erdem, M. D. (2013). Yabancı Dil Öğretminde Kullanılan Yöntemler, Kullanım Özellikleri Ve Eleştiriler. Turkish Studies. Ankara, 91-99.
10. Naiman, N., Frohlich, M., Stern, H., & Todesco, A. (1978). The Good Language Learner. 35-38.
11. O'Malley, J.M., & Chamot, A. (1990). Learning Strategies in Second Language Acquisition. Cambridge, 81-85.
12. Oral, Y. (2015). Sessiz Yol Yöntemi. Dil Öğretimi. Bekleyen, N. (Ed.). Ankara, 117-125.
13. Oxford, R. (1990). Language Learning Strategies: What Every Teacher Should Know. New York, 28-33.
14. Rubin, J. (1987). Learner strategies: Theoretical assumptions, research history and typology, 55-58.

# ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİ ÖYRƏNƏN TƏŞKİLAT KİMİ PEDAQOJİ HEYƏTİN YANAŞMASI

**ÜLVIYYƏ SÜLEYMANOVA**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
SABAH qrupları/Təlim və tədrisin təşkili və metodikası
*Sulviyye24@gmail.com*
BAKI, AZƏRBAYCAN

**XÜLASƏ**

Tədqiqatın əsas məqsədi tədris prosesində inkişaf edən problemləri və ehtiyacları müzakirə etmək, müəllimləri təlim və inkişaf proqramları ilə dəstəkləmək və tələbələrin öyrənmə prosesini daha effektiv hala gətirməkdir. Pedaqoji heyətin prioriteti, tələbələrin daha effektiv şəkildə öyrənməsinə kömək etmək, müəllimlərə dəstək verərək onların təlim metodologiyasını və texnologiyalarını inkişaf etdirməkdən ibarətdir. Bu heyət təhsil müəssisələrində tədris və öyrənmə prosesi məsələlərini həll etmək üçün bir qrup təcrübəli təlimçi və müəllim tərəfindən təşkil edilir. Bu tədqiqat Azərbaycan Dövlət Pedaqoji Universitetinin professor-müəllim heyətinin inkişaf perspektivinin müəyyənləşdirilməsi məqsədini daşıyır. Tədqiqat prosesində ilk növbədə mövzu ilə bağlı ədəbiyyat araşdırılmış və konseptual çərçivə açılmışdır. Keyfiyyət metodu ilə aparılmış tədqiqata sözügedən universitetin müxtəlif kafedralarından ən az 5 illik pedaqoji təcrübəyə sahib 78 müəllim cəlb olunmuşdur. Respondentlər ali təhsil müəssisəsinin rəhbərliyi və pedaqoji heyəti tərəfindən yaradılmış öyrənmə mühiti, müəllim heyətinin əməkdaşlıq fəaliyyətlərinə münasibətini Likert şkalası əsasında bildirmişlər. Pedaqoji heyətin yanaşması, təhsil sistemində dinamik dəyişikliklərə cavab verərək müasir təhsil metodlarını tətbiq etməyə çalışır, inkişaf edən təlim trendlərini izləyir və bu da tələbələrin və müəllimlərin daha müvəffəqiyyətli öyrənmə və tədris prosesində iştirak etməsi üçün əsaslı bir zəmin yaradır. Əldə edilmiş nəticələrin təhlili zamanı öyrənən təşkilatın komponentləri ilə bağlı bir sıra çatışmazlıqların olduğu ortaya çıxmışdır. Bu çatışmazlıqların aradan qaldırılması üçün lazımi fəaliyyətlərin həyata keçirilməsi zərurəti vurğulanmışdır.

**AÇAR SÖZLƏR: Öyrənən təşkilat, pedaqoji heyətin yanaşması, ali təhsil müəssisəsi**

**ABSTRACT**

The main purpose of the research is to discuss the problems and needs that develop in the teaching process, to support teachers with training and development programs and making the learning process of students more effective. The priority of the teaching staff is to help students learn more effectively, to support teachers and develop their teaching methodology and technologies. This staff is organized by a group of experienced trainers and teachers to solve the issues of teaching and learning process in educational institutions. This research aims to determine the perspective of the development of professors and teachers of the Azerbaijan State Pedagogical University. In the research process, first of all, the literature related to the topic was examined and the conceptual framework was opened. 78 teachers with at least 5 years of teaching experience from various departments of the mentioned university were involved in the research conducted using the qualitative method. The respondents expressed their attitude to the learning environment created by the management and teaching staff of the higher education institution, to the collaborative activities of the teaching staff on the basis of a Likert scale. The approach of the teaching staff tries to apply modern educational methods in response to dynamic changes in the educational system, follows developing educational trends, and this creates a solid foundation for students and teachers to participate in a more successful learning and teaching process. During the analysis of the obtained results, it was revealed that there are a number of shortcomings related to the components of the learning organization. The need to implement necessary activities to eliminate these deficiencies was emphasized.

**KEY WORDS: Learning organization, perspective of pedagogical staff, university**

**GIRIŞ**

Öyrənmək - bu bir nəticə deyil, ömür boyu davam edən prosesdir. Müasir tələblərlə uyğunlaşmağın əsas şərti olan bu prosesin bütün sahə və mühitlərdə baş tutması zəruridir. Təşkilatları idarə edənlər öyrəndiyi və öyrənməni təşviq etdiyi təqdirdə öyrənən təşkilat olmaq da mümkündür. Öyrənən təşkilatlar işçilərinə davamlı olaraq öyrənmək və inkişaf etmək imkanı verən mühitlərdir. Bazar elementlərinin daim dəyişdiyi, rəqiblərin sürətlə artdığı, yeni texnologiyaların inkişaf etdiyi dəyişmə mühitində təşkilatların ən qiymətli kapitalı "bilik" olmuşdur. Qeyri-müəyyənliklərlə dolu bu mühitdə müəssisələr uğur qazanmaq üçün öz biliklərini doğru zamanda və ən yaxşı nəticəni verəcək şəkildə istifadə etməlidirlər. (Koç,2008)

Öyrənən təşkilat konsepsiyası hələ 1990-cı illərin əvvəllərində Peter Sengenin "Beşinci disiplin" kitabının nəşrindən sonra geniş yayılmağa başlamışdı. Müəllif bu əsərində mövcud 500 şirkətin 1/3-nin 15 il ərzində yox olacağını və ən böyük müəssisələrin orta ömür müddətinin 40 il olduğunu qeyd edir. Peter Sengenin təklif etdiyi öyrənən təşkilat komponentlərinin tətbiqi vasitəsilə təşkilatlar rəqiblərindən daha yaxşı işləmək üçün davamlı böyüməni təmin edə bilərlər. Ənənəvi iyerarxiyanı vizuallaşdırmaq əvəzinə, bugünkü şirkətlər öyrənən təşkilat yaratmaqda uğur qazandığı zaman sağ qala bilirlər. Öyrənən təşkilat dedikdə insanların arzuladıqları nəticələri yaratmaq üçün öz imkanlarını daim genişləndirdikləri, yeni və geniş düşüncə nümunələrinin yetişdirildiyi, kollektiv istəklərin sərbəst buraxıldığı və insanların davamlı olaraq birlikdə öyrənməyi öyrəndiyi bir təşkilat nəzərdə tutulur. Öyrənən təşkilatlar hadisələr haqqında ənənəvi xətti və analitik təfəkkürdən kənarda təşkilatın üzləşdiyi qarşılıqlı əlaqə, dairəvilik və mürəkkəblikləri qiymətləndirməyə doğru hərəkətlə xarakterizə olunur.

P.Senge öyrənən təşkilatın qurulmasında 5 əsas komponentin mövcudluğunu qeyd etmişdir:

1.Ortaq vizyonun qurulması - Ortaq vizyon yaratmağın yeganə yolu təşkilatın və fərdin baxışlarına güzəştə getməkdir. Eyni vizyonu paylaşmayan insanlar təşkilata o qədər də töhfə verə bilməzlər. Eyni vizyonu paylaşmağın təsiri, işçilərin tapşırıqları yerinə yetirmələri deyil, bunu etmək istədikləri üçün yerinə yetirmələridir.

2.Sistem düşüncəsi - Sistem təfəkkürü fərdi məsələlərə diqqət yetirmək əvəzinə, bütün sistemin müşahidə edilməsi prosesini əks etdirir. Menecerlər başa düşməlidirlər ki, hər bir hərəkət və nəticə digəri ilə əlaqəlidir.

3.Zehni modellər - Kim olduğumuzu düzgün başa düşmək bizə hara gedəcəyimizi və daha çox necə inkişaf edəcəyimizi təsəvvür etməyə imkan verəcək. Bu səbəbdən, işçilər şirkətin dəyərlərini və biznesin nə ilə əlaqəli olduğu haqqında məlumatlı olmalıdırlar.

4.Komanda öyrənməsi - Bu, şəxsi ustalığın və ümumi baxışın bir araya gətirildiyi intizamdır. İşçilər həmkarlarını rəqib kimi deyil, komanda üzvü hesab etməsi çox vacibdir.

5.Şəxsi ustalıq - Vizyon və reallıq arasındakı boşluq işçini vizyonu həyata keçirmək üçün bütün lazımi fəaliyyətləri həyata keçirməyə sövq edir. Bu səbəblə, şəxsi sənətkarlıq və əlaqəli intizam üçün ortaq bir baxış, həqiqətə baxmaq və paylaşmaq çox vacib bir təməldir. Bəzən işçilər məqsədlərinə çatmaq üçün səriştələrə malik olmadıqlarını düşünə bilərlər. Sengeyə görə biz şüuraltı zehnimizi məşq etdirməliyik, çünki o, daha mürəkkəb problemləri şüurumuzdan daha tez həll edə bilir.

İnsanlar öz gücsüzlüyünə inanması onları öz baxışlarını həyata keçirməkdən çəkindirəcək. Buna görə də biz şüuraltı zehnimizi stress və problemlərlə mübarizə aparmağa öyrətməliyik. (Senge,1997)

Əvvəllər daha çox bizneslərlə bağlı aparılan bu tipli araşdırmalar son illərdə təhsil təşkilatlarını əhatə etməyə başlayıb. Təhsil təşkilatı olan universitetlərin öyrənən təşkilat olması onların mühitlərindəki dəyişikliklərə uyğunlaşmasında faydalı olacağı iddia olunur (Tiltay, 2009).

Universitetlər fərdlərin cəmiyyətdəki rollarını müəyyən etdikləri və onları iş həyatına hazırlamaq üçün lazımi təhsil aldığı qurumlardır. Universitetlər, tələbələrin öyrənmək istəyi, ehtiyacları , ziyalıların elmə dəstəyi, cəmiyyətin təhsilə olan ehtiyacı tələbindən yaranmışdır. Universitetlərdə alınan təhsil fərdlərin sosiallaşmasına və peşə həyatlarında ehtiyac duyacaqları bilik və təcrübə üçün lazımi avadanlıqlara sahib olmasına töhfə verir. Müasir informasiya cəmiyyətində bu proses təkcə universitet təhsili ilə məhdudlaşmır, ömür boyu təhsil mühüm prinsip kimi qəbul edilir.

Universitetlərin öyrənən təşkilat mədəniyyətini mənimsəməsi, davamlı öyrənməyi prinsip kimi qəbul etməsi və bu məqsədlə kadrlarını davamlı olaraq yetişdirən qurumlara çevrilməsi yönündə böyük gözləntilər var (Kılıç və Aytekin, 2010).

Mövcud qloballaşma dövründə təhsil müəssisələrinin öyrənən təşkilata çevrilməsi üçün müəssisə daxilində yeni ideyalar öyrənərək və imkanlar axtararaq davamlı və yaradıcı şəkildə dəyişməyi bacarmalıdırlar (Ellinger, 2002).

Ali təhsil müəssisəsində keyfiyyətli tədris mühitinin yaradılmasında müəllimlərin fəaliyyəti ən önəmli faktor kimi çıxış edir. Müəllimlər öz tədris və tədqiqat fəaliyyətləri ilə tələbələrin təlim nəticələrinə və müəssisənin ümumi inkişafına birbaşa təsir göstərirlər. Öyrənən təşkilatlar kimi ali təhsil müəssisələri professor-müəllim heyətinin çoxşaxəli baxışlarına malikdirlər. Bir tərəfdən, onlar həm özləri, həm də tələbələri üçün davamlı öyrənmə və inkişafın vacibliyini dərk edirlər. Onlar öz rollarında aktual və effektiv qalmaq üçün sosial, iqtisadi və mədəni mənzərələrdəki dəyişikliklərə, eləcə də yeni tədris metodları və texnologiyalarına uyğunlaşmağın zəruriliyini başa düşürlər. Digər tərəfdən, dəyişikliklərin həyata keçirilməsi və innovasiyaların təşviqi zamanı müəllim heyəti də çətinliklərlə üzləşə bilər. Onlar həmkarlarının və ya rəhbərliyin müqaviməti ilə qarşılaşa bilər və ya iş yükünün tələbləri qarşısında həddən artıq yüklənmiş ola bilərlər. Bütün bunlar motivasiyanın olmamasına və ya dəyişiklik və inkişaf təşəbbüslərinə azalmasına səbəb olur.

Ali təhsil müəssisələri öz ətraflarını daim izləyən, ətraf mühitə uyğunlaşan və ümumi fəaliyyətini yaxşılaşdıran öyrənən təşkilatlara çevrilmək üçün artan təzyiqlə üzləşirlər. Bu, ənənəvi təşkilati modellərdən öyrənməyi və inkişaf etməyi və təşkilatın bütün üzvlərinin iştirakını vurğulayan modellərə diqqət yetirməyi tələb edir. Bu, transformasiya prosesinin mühüm hissəsidir, çünki müəllimlər tələbələrin öyrənilməsini asanlaşdırmaq və müəssisə daxilində öyrənmə mədəniyyətini yaratmaq üçün məsuliyyət daşıyırlar. Onlar öz tədris və tədqiqat fəaliyyətləri ilə tələbələrin təlim nəticələrinə və müəssisənin ümumi inkişafına birbaşa təsir göstərirlər. Öyrənən təşkilatlar kimi ali təhsil müəssisələri professor-müəllim heyətinin çoxşaxəli baxışlarına malikdirlər. Bir tərəfdən, onlar həm özləri, həm də tələbələri üçün davamlı öyrənmə və inkişafın vacibliyini dərk edirlər. Onlar öz rollarında aktual və effektiv qalmaq üçün sosial, iqtisadi və mədəni mənzərələrdəki dəyişikliklərə, eləcə də yeni tədris metodları və texnologiyalarına uyğunlaşmağın zəruriliyini başa düşürlər. Digər tərəfdən, dəyişikliklərin həyata keçirilməsi və innovasiyaların təşviqi zamanı müəllim heyəti də çətinliklərlə üzləşə bilər. Onlar həmkarlarının və ya rəhbərliyin müqaviməti ilə qarşılaşa bilər və ya iş yükünün tələbləri qarşısında həddən artıq yüklənmiş hiss edə bilərlər. Onlar həmçinin təşkilatın daha geniş öyrənmə məqsədlərindən və strateji baxışından qopmuş hiss edə bilərlər ki, bu da motivasiyanın olmamasına və ya dəyişiklik təşəbbüslərinə sahiblənməyə səbəb olur. Bu çağırışlara cavab vermək üçün ali təhsil müəssisələri pedaqoji heyətin davamlı öyrənmə və peşəkar inkişafla məşğul olması üçün dəstək və resurslar təmin etməlidir. O, həmçinin qərar qəbul etmə prosesinə professor-müəllim heyətini cəlb etməli və əməkdaşlıq və ən yaxşı təcrübələrin mübadiləsi üçün imkanlar təmin etməlidir.

İdarə heyəti müəssisədə öyrənmə və innovasiya mədəniyyəti yaratmaqla universiteti əsl öyrənən təşkilata çevirə bilər.

**TƏDQIQAT METODU**

Öyrənmə mürəkkəb bir prosesdir. Başqa sözlə, öyrənmə prosesi fərdi və təşkilati dəyişənləri, eləcə də fərdin müxtəlif öyrənmə tiplərini və bacarıqlarını özündə cəmləşdirən bir hadisədir. Bu baxımdan fərdin təşkilat mühitində və ondan kənarda öyrəndiklərinin təşkilati öhdəliklərə töhvəsini müəyyən etmək olduqca çətindir.

Pedaqoji heyətin iştirak etdiyi bu tədqiqat onların öz təşkilatlarını öyrənən bir müəssisə kimi qiymətləndirmək məqsədi daşıyır. Tədqiqat Azərbaycan Dövlət Pedaqoji Universitetində minimum 5 illik pedaqoji fəaliyyətə sahib olan və müxtəlif kafedralar üzrə fəaliyyət göstərən 78 müəllimin iştirakı ilə həyata keçirilmişdir. Tədqiqat anonim şəkildə aparılmış və sorğu sualları elektron formada respondentlərə təqdim olunmuşdur. Onların cavabları Likert şkalası vasitəsi ilə ölçülmüşdür. Sonda respondentlərə ünvanlanan açıq sual isə onların müəssisənin inkişafı ilə bağlı təkliflərini öyrənmək xarakteri daşıyır. Sorğunun ADPU-nun minimum 5 illik professor-müəllim heyəti ilə təşkil olunmasının səbəbi seçilmiş kadrın universiteti yaxından tanıması və bu mövzuda daha adekvat mühakimə yürüdəcəyi düşüncəsidir.

Ümumilikdə fikirlərə nəzər saldıqda, ADPU-nun öyrənən təşkilat kimi dəyərləndirilməsində respondentlərin rəyi yüksəkdir. Respondentlərin cavablarının ümumi mənzərəsinə baxsaq 15.01%- i tamamilə razı, 67.25%-i razı, 11.59%-i fikrinin olmadığını, 4.11%-i razı olmadığını, 2.03%-i isə tamamilə narazı olduğunu görərik. Statistik təhlillərdən də göründüyü kimi razı olanların faiz nisbəti yüksəkdir. Bu təhlildən belə nəticəyə gəlmək olar ki, ADPU öyrənən təşkilat kimi formalaşmaqda uğurla addımlayır. Cədvəl 1-də respondentlərin cavab faizinin həm ümumi suallar üzə, həm də hər bir sual üzrə paylanması qeyd olunmuşdur.

Bununla yanaşı, ADPU-nun təkilati strukturunun öyrənən təşkilata uyğun olduğunu qeyd edən pedaqoji heyətin bəzi üzvləri onların öyrənməsi üçün kifayət qədər vaxt ayrılması, qərar qəbulu zamanı onların emosional vəziyyətinin nəzərə alınması, universitetin onları geniş perspektivdən düşünməyə təşviq etməsi barədə fikirlərlə razı olmadıqlarını bildiriblər. Sorğuda istifadə olunan suallar bizə icazə verir ki, ADPU-nu öyrənən təşkilat kimi dəyərləndirən zaman pedaqoji heyətin fikrinə əsasən sistemin çatışmayan cəhətlərini görə bilək.

***Cədvəl 1**. Nəticələrin suallar üzrə təhlili*

| | **Suallar** | **Tamamilə razıyam** | **Razıyam** | **Fikrim yoxdur** | **Razı deyiləm** | **Qətiyyən razı deyiləm** |
|---|---|---|---|---|---|---|
| 1. | Pedaqoji heyət üzvləri onların öyrənmələrini stimullaşdırmaq üçün hər cür maddi və mənəvi dəstək alır. | 11 (14.1%) | 49 (62.82%) | 7 (8.97%) | 5 (6.41%) | 6 (7.69%) |
| 2. | Pedaqoji heyət öyrənmə məqsədi ilə öz səhvlərini digər heyət üzvləri ilə bölüşə və müzakirə edə bilir. | 11 (14.1%) | 61 (78.21%) | 3 (3.85%) | 1 (1.28%) | 2 (2.56%) |
| 3. | Pedaqoji heyət üzvləri bir-birlərinə dürüst və açıq rəy verməyi bacarır. | 19 (24.36%) | 49 (62.82%) | 6 (7.69%) | 3 (3.85%) | 1 (1.28%) |
| 4. | Pedaqoji heyət “niyə” sualını rahatlıqla verə bilir. | 13 (16.67%) | 52 (66.67%) | 8 (10.26%) | 4 (5.13%) | 1 (1.28%) |
| 5. | Universitetinizdə pedaqoji heyət üzvləri komanda halında çalışmağa həvəslidir. | 17 (21.79%) | 52 (66.67%) | 4 (5.13%) | 3 (3.85%) | 2 (2.56%) |
| 6. | İdarə heyəti öyrənmə fürsətləri və təhsil üçün gələn təklifləri dəstəkləyir. | 18 (23.08%) | 51 (65.38%) | 7 (8.97%) | 1 (1.28%) | 1 (1.28%) |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 7. | İdarə heyəti universitetin məqsədləri, gələcək planları və missiyası haqqında ən son məlumatları pedaqoji heyət ilə bölüşür. | 15 (19.23%) | 57 (73.08%) | 5 (6.41%) | 0 | 1 (1.28%) |
| 8. | Universitetinizin vizyonu haqqında pedaqoji heyət üzvləri məlumatlıdır. | 12 (15.38%) | 52 (66.67%) | 11 (14.10%) | 2 (2.56%) | 1 (1.28%) |
| 9. | İdarə heyəti pedaqoji üzvlərin təşəbbüs göstərməsini bəyənir. | 13 (16.67%) | 56 (71.79%) | 6 (7.69%) | 1 (1.28%) | 2 (2.56%) |
| 10. | Komanda işi universitetinizdə tez-tez istifadə olunan idarə üsuludur. | 11 (14.14%) | 51 (65.38%) | 11 (14.10%) | 4 (5.13%) | 1 (1.28%) |
| 11. | Pedaqoji heyətin öyrənməsi üçün kifayət qədər vaxt ayrılır. | 9 (11.54%) | 50 (64.10%) | 8 (10.26%) | 11 (14.10%) | 0 |
| 12. | Universitetinizdə pedaqoji heyət problem haqqında idarəçiyə məlumat verməzdən əvvəl öz aralarında müzakirə edərək həll yolu təklif edir. | 11 (14.10%) | 51 (65.38%) | 13 (16.67%) | 2 (2.56%) | 1 (1.28%) |
| 13. | Universitetiniz qərar qəbul edən zaman işçilərin emosional vəziyyətini nəzərə alır. | 8 (10.26%) | 43 (55.13%) | 16 (20.51%) | 6 (7.69%) | 5 (6.41%) |
| 14. | Pedaqoji heyət tapşırıqların icrası zamanı ehtiyac duyacaqları bacarıqları asanlıqla müəyyən edə bilir. | 7 (8.97%) | 57 (73.08%) | 10 (12.82%) | 2 (2.56%) | 2 (2.56%) |
| 15. | İdarə heyəti yeni ideyalara açıqdır. | 15 (19.23%) | 57 (73.08%) | 3 (3.85%) | 2 (2.56%) | 1 (1.28%) |
| 16. | Universitetinizin vizyonunu izləməklə öz viynonunuza çata bilərsiz. | 5 (6.41%) | 53 (67.95%) | 16 (20.51%) | 3 (3.85%) | 1 (1.28%) |
| 17. | Pedaqoji heyət öyrənmək üçün bir-birlərinə kömək edir. | 14 (17.95%) | 60 (76.92%) | 2 (2.56%) | 2 (2.56%) | 0 |
| 18. | Universitetiniz pedaqoji heyəti öz fikirlərini açıq şəkildə ifadə etməyə təşviq edir. | 11 (14.10%) | 50 (64.10%) | 13 (16.67%) | 2 (2.56%) | 2 (2.56%) |
| 19. | Universitetdaxili müzakirələrdə müxtəlif iyerarxik səviyyələr arasında bərabərlik qorunur. | 6 (7.69%) | 44 (56.41%) | 21 (26.92%) | 5 (6.41%) | 2 (2.56%) |
| 20. | Əməkdaşların öyrənmə səyləri rəhbərlik tərəfindən mükafatlandırılır. | 13 (16.67%) | 50 (64.10%) | 11 (14.10%) | 3 (3.85%) | 1 (1.28%) |
| 21. | Universitetinizin siyasət və təcrübələri qrup şəklində çalışmağa manea olmur. | 7 (8.97%) | 41 (52.56%) | 18 (23.08%) | 10 (12.82%) | 2 (2.56%) |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 22. | Universitetiniz peqadoji heyəti geniş prespektivdən düşünməyə təşviq edir. | 10 (12.82%) | 54 (69.23%) | 10 (12.82%) | 3 (3.85%) | 1 (1.28%) |
| 23. | İdarə heyəti bütün işçilərə universitetin vizyonuna nail olmaqda öz töhfələrini nümayiş etdirməyə imkan verir. | 12 (15.38%) | 56 (71.79%) | 8 (10.26%) | 1 (1.28%) | 1 (1.28%) |
| 24. | Pedaqoji heyət vəzifələrini yerinə yetirən zaman qarşılaşdıqları problemləri öyrənmə fürsəti kimi görür. | 9 (11.54%) | 57 (73.08%) | 10 (12.82%) | 1 (1.28%) | 1 (1.28%) |
| Cəm | 1872 (100%) | 281 (15.01%) | 1259 (67.25%) | 217 (11.59%) | 77 (4.11%) | 38 (2.03%) |

Ümumi mənzərənin daha yaxşı nəzərə çarpması üçün cəsvəl 2-də cavab variantları müvafiq ballar ilə kodlaşdırılmış, toplam nəticə və hər bir suala uyğun pedaqoji heyətin fikirlərinin statistikası verilmişdir.

***Cədvəl 2**. Balllar üzrə təhlili*

| | **Suallar** | **Tamamilə razıyam** | **Razıyam** | **Fikrim yoxdur** | **Razı deyiləm** | **Qətiyyən razı deyiləm** |
|---|---|---|---|---|---|---|
| 1. | Pedaqoji heyət üzvləri onların öyrənmələrini stimullaşdırmaq üçün hər cür maddi və mənəvi dəstək alır. | 11 (6.1%) | 98 (54.44%) | 21 (11.66%) | 20 (11.11%) | 30 (16.66%) |
| 2. | Pedaqoji heyət öyrənmə məqsədi ilə öz səhvlərini digər heyət üzvləri ilə bölüşə və müzakirə edə bilir. | 11 (7.05%) | 122 (78.20%) | 9 (5.76%) | 4 (2.56%) | 10 (6.41%) |
| 3. | Pedaqoji heyət üzvləri bir-birlərinə dürüst və açıq rəy verməyi bacarır. | 19 (12.50%) | 98 (64.47%) | 18 (11.84%) | 12 (7.89%) | 5 (3.28%) |
| 4. | Pedaqoji heyət "niyə" sualını rahatlıqla verə bilir. | 13 (8.02%) | 104 (64.19%) | 24 (14.81%) | 16 (9.87%) | 5 (3.08%) |
| 5. | Universitetinizdə pedaqoji heyət üzvləri komanda halında çalışmaya həvəslidir. | 17 (10.96%) | 104 (67.09%) | 12 (7.74%) | 12 (7.74%) | 10 (6.45%) |
| 6. | İdarə heyəti öyrənmə fürsətləri və təhsil üçün gələn təklifləri dəstəkləyir. | 18 (12%) | 102 (68%) | 21 (14%) | 4 (2.66%) | 5 (3.33%) |
| 7. | İdarə heyəti universitetin məqsədləri, gələcək planları və missiyası haqqında ən son məlumatları pedaqoji heyət ilə bölüşür. | 15 (10.79%) | 114 (82.01%) | 15 (10.79%) | 0 | 5 (3.59%) |
| 8. | Universitetinizin vizyonu haqqında pedaqoji heyət üzvləri məlumatlıdır. | 12 (7.40%) | 104 (64.19%) | 33 (20.37%) | 8 (4.93%) | 5 (3.06%) |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 9. | İdarə heyəti pedaqoji üzvlərin təşəbbüs göstərməsini bəyənir. | 13 (8.28%) | 112 (71.33%) | 18 (11.46%) | 4 (2.54%) | 10 (6.36%) |
| 10. | Komanda işi universitetinizdə tez-tez istifadə olunan idarə üsuludur. | 11 (6.58%) | 102 (61.07%) | 33 (19.76%) | 16 (9.58%) | 5 (2.99%) |
| 11. | Pedaqoji heyətin öyrənməsi üçün kifayət qədər vaxt ayrılır. | 9 (5.08%) | 100 (56.49%) | 24 (13.55%) | 44 (24.85%) | 0 |
| 12. | Universitetinizdə pedaqoji heyət problem haqqında idarəçiyə məlumat verməzdən əvvəl öz aralarında müzakirə edərək həll yolu təklif edir. | 11 (6.66%) | 102 (61.81%) | 39 (23.63%) | 8 (4.84%) | 5 (3.03%) |
| 13. | Universitetiniz qərar qəbul edən zaman işçilərin emosional vəziyyətini nəzərə alır. | 8 (4.18%) | 86 (45.02%) | 48 (25.13%) | 24 (12.56%) | 25 (13.08%) |
| 14. | Pedaqoji heyət tapşırıqların icrası zamanı ehtiyac duyacaqları bacarıqları asanlıqla müəyyən edə bilir. | 7 (4.14%) | 114 (67.45%) | 30 (17.75%) | 8 (4.73%) | 5 (5.91%) |
| 15. | İdarə heyəti yeni ideyalara açıqdır. | 15 (9.93%) | 114 (75.50%) | 9 (5.96%) | 8 (5.30%) | 5 (3.31%) |
| 16. | Universitetinizin vizyonunu izləməklə öz viynonunuza çata bilərsiz. | 5 (2.84%) | 106 (60.22%) | 48 (27.27%) | 12 (6.81%) | 5 (2.84%) |
| 17. | Pedaqoji heyət öyrənmək üçün bir-birlərinə kömək edir. | 14 (9.45%) | 120 (81.08%) | 6 (4.05%) | 8 (5.40%) | 0 |
| 18. | Universitetiniz pedaqoji heyəti öz fikirlərini açıq şəkildə ifadə etməyə təşviq edir. | 11 (6.54%) | 100 (59.52%) | 39 (23.21%) | 8 (4.76%) | 10 (5.95%) |
| 19. | Universitetdaxili müzakirələrdə müxtəlif iyerarxik səviyyələr arasında bərabərlik qorunur. | 6 (3.20%) | 88 (47.05%) | 63 (33.68%) | 20 (10.69%) | 10 (5.34%) |
| 20. | Əməkdaşların öyrənmə səyləri rəhbərlik tərəfindən mükafatlandırılır. | 13 (7.97%) | 100 (61.34%) | 33 (20.24%) | 12 (7.36%) | 5 (3.06%) |
| 21. | Universitetinizin siyasət və təcrübələri qrup şəklində çalışmaya maneə olmur. | 35 (12.72%) | 164 (59.63%) | 54 (19.63%) | 20 (7.27%) | 2 (0.72%) |
| 22. | Universitetiniz peqadoji heyəti geniş prespektivdən düşünməyə təşviq edir. | 10 (6.06%) | 108 (65.45%) | 30 (18.18%) | 12 (7.27%) | 5 (3.03%) |
| 23. | İdarə heyəti bütün işçilərə universitetin vizyonuna nail olmaqda öz töhfələrini nümayiş etdirməyə imkan verir. | 12 (7.64%) | 112 (71.33%) | 24 (15.28%) | 4 (2.54%) | 5 (3.18%) |
| 24. | Pedaqoji heyət vəzifələrini yerinə yetirən zaman qarşılaşdıqları problemləri öyrənmə fürsəti kimi görür. | 9 (5.55%) | 114 (70.37%) | 30 (18.51%) | 4 (2.46%) | 5 (3.08%) |
| Cəm | 3958 (100%) | 277 (7.02%) | 2518 (63.84%) | 651 (16.51%) | 308 (7.81%) | 190 (4.82%) |

Pedaqoji heyətə universitet tərəfindən onların inkişafına dəstək verəcək hansı fəaliyyətləri görmək istədikləri sualı ünvanlanmışdır. Sorğuda açıq sual kimi yer alan bu sualın cavab variantlarını təhlili bizə sözü gedən ali təhsil müəssisəsinin çatışmayan yanlarını görməyə imkan yaratmışdır. Respondentlərin bir çoxu onların peşəkar inkişafı üçün daha çox təlim və seminarların təşkilini təklif etmişdir. Həmçinin bir qrup şəxs onları stimullaşdıran addımların atılmalı olduğunu söyləmiş, bu fonda əmək haqqının artırılmasını müsbət dəyərləndirmişdirlər. Bununla yanaşı bəzi texniki məsələləri və çatışmazlıqları qeyd etmiş, daha yaxşı təşkilati mühit üçün təkliflər irəli sürmüşdürlər. Verilən cavabların sistemləşdirilmiş forması ilə aşağıdakı cədvəl vasitəsilə tanış ola bilərsiniz (Cədvəl 3).

| | |
|---|---|
| **Qənaətbəxş** | Mövcud vəziyyət qənaətbəxşdir. |
| | Yetərincə fəaliyyət təqdim edir. |
| | Təklifim yoxdu, qənaətbəxş hesab edirəm. |
| | Hərşey öz qaydasındadır. |
| | Razıyam. |
| | Məni hər şey qane edir. |
| | Rəhbərlik professor, müəllimlərə həmişə dəstək olur. |
| **Fəaliyyətlər** | Müxtəlif layihələrə pedaqoji heyyətin cəlbi, qrup əməkdaşlıqları. |
| | Konfranslarda, seminarlarda iştirak. |
| | Konfrans, seminarlarda iştirak etmek. |
| | Daha çox ixtisas üzrə təlimlərin təşkil olunmasını. |
| | Qarşılıqlı birgə fəaliyyət. |
| | Vaxtaşırı beynəlxalq səviyyəli təlimlərin təşkil edilməsini. |
| | Yeni təlimlərin təşkili. |
| | Xarici təlimçilerin təcrübəsinə inteqrasiya ilə bağlı seminarlar.(ixtisasla bağlı) |
| | Təlim və seminarların təşkil olunması. |
| | Tələbələri miq imtahanına hazırlayan təlimlər keçirmək. |
| | Seminarlar, təşkilatı işlər çox teşkil edilsin. |
| | Yeni layihelere açiq olmaq ve ixtisasla bağli ekskursiyalar keçirtmək. |
| | Təlimlərin keçirilməsi. |
| | Tez-tez treninqlerin seminarlarin keçirilmesi, kurslarin teşkili, yeni informasiya ve dünya təcrübəsinin işçi heyətə öyrədilməsi inkişaf yolunda irəliləməyimizə çox kömək olar. |
| | Müəllimlərin təkmilləşdirilməsi üçün xaricdə təşkil olunan elmi konfranslarda iştirak edərək yenilikləri universitetimizə gətirmək. |
| | Təlimlər təklif edə bilərəm.Təlim verə bilərəm. |
| | İxtisasima uyğun müxtəlif seminar və tanınmış xarici ixtisasçılar ilə görüş və fikir mübadiləsi. |
| | Müxtəlif mövzulu dəyirmi masaların olması. |
| | Müxtəlif özünüinkişaf təlimlər təşkil etmək və pedaqoji heyətin əksəriyyətin bu təlimlərdə iştirakını təmin etmək. |
| | Təlimlər. |
| | Təlimlərin daimi olması. |
| Xarici dil kursları | Pulsuz ingilis dili kursları. |
| | Dil kursları. |
| | İstərdim ki,ingilis dilində pulsuz kurslar açılsın və müəllimlər xarici dil bacarıqlarını inkişaf etdirsinlər. Müəllimləri xarici ölkələrə təcrübə küçməyə göndərsinlər.. |
| | Müəllimlər üçün ingilis dili kurslarının təşkili. |
| | Xarici dilin təkmillləşdirilməsində maraqli ola bilər. |
| Beynəlxalq əlaqə | Xarici ölkələrlə tələbə mübadiləsinin daha da genişləndirilməsi. |
| | İxtisas üzrə digər ölkələrə gedib təcrübəni öyrənmək. |
| | Başqa nüfuzlu universitetlərlə çox əməkdaşlıq edilməsini təklif edərdim. |
| | Digər ali pedaqoji məktəblərlə fikir və ya pedaqoji təlim aparmaq təcrübəsi mübadiləsini təşkil |

| | |
|---|---|
| | etmək. |
| Texniki məsələlər | Sənəd işləri çoxdur ,bu isə vaxt itkisinə səbəb olur. |
| | İnfrastrukturun bərpası. |
| | Universitet tərəfindən keçirilən bir çox təlimlərin iş saatlarından kənar və istirahət günlərində olmasını istərdim. |
| | Müasir texnologiyanın istifadəsinin artırılması. |
| | Siniflərin müasir avadanlıqla və internet ilə təchizatı. |
| | Fərdi dərslərin saatlarını çoxalması. |
| | Müəllimin istirahəti üçün idman, əyləncə otağı olsun. Müəllimlərə psixoloji dəstək nəzarəti olsun. |
| | Müsiqi fərdi dərslərinin saatlarının artırılması. |
| | Fənlərin seçilməsi, bölünməsi üsulları daha uyğun şəkildə həyata keçirilsin. Müasir tələblərə cavab verən şəraitin yaradılması (misal. kompyuter otaqları və s). Beynəlxalq mütəxəssislərin təlimlərində iştirakın təmin edilməsi. |
| | İfaçılıq fənlərinin saatlarının artırılmasını təklif edirəm. |
| | Auditoriyaların avadanlıqlarla təchiz edilməsi. |
| | Vəsaitlərin təminatı, texniki təcizatın təminatı,siniflərin müasir texnaloğiyalarla təminat olunması. |
| | Əsas fənlərdə dərs saatlarını artırmaq. |
| | Fakültələrin arasında daha sıx kommunikasiya yaratmaqla tələbələrin inkişafında ayrı-ayrı fənlərin(musiqi,ədəbiyyat ,təsviri incəsənət və s.) rolunu artırmaq. |
| | Daha çox müstəqillik. |
| Tələbələrə dəstək | Tələbələrimizi başa düşmək, rəqabətə davamlı, iş sferasının tələblərinə cavab verən ixtisasçılar yetişdirmək. |
| | İKT istifadə edərək tələbələrə daha çox məlumatların ötürülməsi. |
| Stimullaşdırıcı tədbirlər | Müasir yönümlü təcrübələrin yayılması. |
| | Elmi dəstək. |
| | Müəllimlərin tələbələr tərəfindən seçilməsi, müəllimin öz üzərində daha çox işləməsinə və inkişafına səbəb olar. |
| | İstedadlı yaradıcı gənclər üçün yaradıcılıq şəraiti yaratmaq.<br>Əhalinin marifləndirilməsi və ictimai dəyərlərin təbliği istiqamətində ardıcıl surətdə fəaliyyət göstərmək.<br>İctimai proseslərin inkişafını stimullaşdıran ictimai nəzarətin təşkilində iştirak etmək.<br>Digər sosial ictimai faydalı tədbirləri həyata krçirmək və onlara qoşulmaq. |
| | 1. Məqalə və kitabların çapına, xarici konfranslarda iştiraks maddi dəstək<br>2. Öyrənmək və işləmək üçün ödənişli saytlara və proqramlara universitet hesabından daxil ola bilmək<br>3.Müəllim şəxsiyyətinə hörmət və sayqı hissini tələbələrə aşılamaq, dürüst və savadlı, öz peşəsinə sadiq və təcrübəli müəllimləri qiymətləndirmək, tələbələr kimi müəllimlərin də hüquqları olduğunu başa salmaq.<br>4. Tələbələrdən soruşduqda niyə dərsi dinləmirsinix, niyə öyrənmək istəmirsiniz, 5-10 faizindən digəri müəllim olmayacaqlarını bildirir və müəllim peşəsinin onlara gələcəkdə heç bir maddi və mənəvi firavanlıq vəd etmədiyini söyləyirlər və oxumaq istəyəm tələbələr üçün işçi şərait yaratmaq çətinləşir. |
| | Elmi tədqiqatlarımıza vaxtın ayrılmasını,auditoriyada özümüzü müəllim kimi hiss etməmiz üçün mühazirə kürsüsünün olmasını istərdim. |
| | Təhsilimizə davam etməyimizə şərait yaratsınlar,əmək haqqlarını artırmaqla işin keyfiyyətinin artirilmasına stimul verilsin. |
| | Peşəkar və inkişafetdirici təlimlərin çoxalması, öyrənmə imkanlarının genişləndirilməsi və stimullaşdırıcı əməkhaqqı sisteminin təmin olunması yaxşı olar. |
| | Maddiyyat. |

**NƏTICƏ**

Sorğuda verilən cavabların təhlili pedaqoji prespektivdən ADPU-nun öyrənən təşkilat kimi formalaşması istiqamətində irəlilədiyini göstərir. Davamlı öyrənmə imkanları yaradılması, sual verilməsinin dəstəklənməsi, əməkdaşlıq və komanda şəklində öyrənmənin yaxşılaşdırılması, təşkilat

və ətraf mühit arasında əlaqə qurması kimi məsələlərə idarə heyətinin daha həsas yanaşmasını tövsiyyə edə bilərik. Müəssisədə lider model olmalı və öyrənməni dəstəkləməlidir. Bununla yanaşı pedaqoji heyətin fikirləri nəzərə alınmalı, onların peşəkar inkişafına daha çox diqqət ayrılmalı, onların tükənmişlik sindromu yaşamamaları üçün stimullaşdırıcı tədbirlər həyata keçirməlidir.

**ƏDƏBIYYAT SIYAHISI**

Tədqiqat işində istinadlar APA stilinə uyğun olaraq qeyd olunur. Yəni istinad cümlənin sonunda mötərizə içində müəllifin (və ya müəlliflərin) soyadı, nəşr tarixi göstərilir. Nümunə üçün: (Qasımov, 2023). İstinaddan sonra nöqtə qoyulur. Ən çox istifadə edilmiş 5 ədəbiyyat göstərilməli və aşağıdakı nümunəyə uyğun olmalıdır:

1. Ellinger, A. D., Ellinger, A. E., & Yang, B. (2002). How does learning occur in organizations: Towards a learning organization perspective. Human Resource Development Review, 1(4), 406-428.
2. Kılıç, R., & Aytekin, A. G. Ç. Üniversitede çalışan personelin öğrenen örgüt kültürüne ilişkin algılarının belirlenmesine yönelik bir araştırma: balıkesir üniversitesi örneği. Journal of Management and Economics Research, 8(14), 151-168.
3. Koç, S. (2008). Öğrenen organizasyon anlayışının performans değerleme sistemine etkisi (Doctoral dissertation, Sakarya Universitesi (Turkey)).
4. Senge, P. M. (1997). The fifth discipline. Measuring business excellence.
5. Tiltay, M. A. (2015). Anadolu Üniversitesi'nin öğrenen örgüt olma özelliklerine ilişkin öğretim elemanlarının görüşleri (Doctoral dissertation, Anadolu University (Turkey)).

# ŞAGİRD ŞƏXSİYYƏTİNİN İNKİŞAFINDA AİLƏ-MƏKTƏB ƏMƏKDAŞLIĞININ ROLU

**NURDAN ƏLIYEVA**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Magistratura və Doktorantura şöbəsi
*aliyevanurdan944@gmail.com*
AZƏRBAYCAN, BAKI

**XÜLASƏ**

Bu məqalə Azərbaycanın mədəni və təhsil kontekstində ailə-məktəb əməkdaşlığı və şagird şəxsiyyətinin inkişafı arasındakı mürəkkəb əlaqəni araşdırır. Ailələr və məktəblər arasında əməkdaşlıq səylərinin Azərbaycan şagirdləri arasında şəxsiyyətin çoxşaxəli aspektlərinə necə təsir etdiyini başa düşməyə diqqət yetirməklə, tədqiqatın məqsədi Azərbaycan kontekstinə uyğunlaşdırılmış effektiv təhsil təcrübələri haqqında dəyərli fikirlər təqdim etməkdir.

Tədqiqat Azərbaycanda şagird inkişafının formalaşmasında ailə və təhsil mühitinin mühüm əhəmiyyətini dərk etməklə başlayır. Ailə bağlarına və akademik nailiyyətlərə mədəni vurğunu nəzərə alaraq, ailə-məktəb əməkdaşlığının dinamikasını başa düşmək ölkədə şagird nəticələrinin optimallaşdırılması üçün mühüm əhəmiyyət kəsb edir.

Mövcud ədəbiyyat və empirik sübutlara əsaslanaraq, tədqiqat ailələr və məktəblər arasında əməkdaşlığın Azərbaycanda şagird şəxsiyyətinin inkişafına təsir göstərdiyi xüsusi mexanizmləri araşdırır. O, ailə-məktəb qarşılıqlı əlaqəsinə təsir edən unikal sosial-mədəni amilləri və onların şagirdlərin nəticələrinə sonrakı təsirlərini müəyyən etmək məqsədi daşıyır.

Ümumilikdə, bu tədqiqat işi şagird şəxsiyyətinin formalaşmasında ailə-məktəb əməkdaşlığının kritik rolunu vurğulamaqla Azərbaycanda effektiv təhsil təcrübələri üzrə artan ədəbiyyat toplusuna

töhfə verməyə çalışır. Mədəni dinamikanın və praktiki nəticələrin nüanslı tədqiqi vasitəsilə tədqiqatın məqsədi Azərbaycan təhsil kontekstində müsbət şagird nəticələrini təşviq etmək üçün sübuta əsaslanan strategiyaları məlumatlandırmaqdır.

**Açar sözlər: Ailə-məktəb əməkdaşlığı, şəxsiyyətin inkişafı, təhsil, sosial-emosional rifah**

**SUMMARY**

This article examines the complex relationship between family-school cooperation and student identity development in the cultural and educational context of Azerbaijan. Focusing on understanding how collaborative efforts between families and schools affect multifaceted aspects of identity among Azerbaijani students, the research aims to provide valuable insights into effective educational practices adapted to the Azerbaijani context.

The study begins with understanding the importance of the family and educational environment in the formation of student development in Azerbaijan. Given the cultural emphasis on family ties and academic achievement, understanding the dynamics of family-school collaboration is critical to optimizing student outcomes in the country.

Based on existing literature and empirical evidence, the study examines the specific mechanisms through which collaboration between families and schools influences student identity development in Azerbaijan. It aims to identify the unique sociocultural factors that influence family-school interactions and their subsequent effects on student outcomes.

Overall, this research endeavors to contribute to the growing body of literature on effective educational practices in Azerbaijan by emphasizing the critical role of family-school collaboration in the formation of student identity. Through a nuanced examination of cultural dynamics and practical outcomes, the research aims to inform evidence-based strategies to promote positive student outcomes in the Azerbaijani educational context.

**Keywords: Family-school cooperation, personality development, education, social-emotional well-being**

**Giriş**

Ailələr və məktəblər arasında əməkdaşlıq bütün dünyada şagirdlərin hərtərəfli inkişafının formalaşmasında mühüm rol oynayır. Ailə dəyərlərinin və akademik nailiyyətlərin mühüm əhəmiyyət kəsb etdiyi Azərbaycanın unikal mədəni və təhsil kontekstində ailə-məktəb əməkdaşlığının dinamikasını başa düşmək şagirdlərin nəticələrinin optimallaşdırılması üçün mühüm əhəmiyyət kəsb edir. Bu müqəddimədə "Azərbaycanda şagird şəxsiyyətinin inkişafında ailə-məktəb əməkdaşlığının rolu" mövzusunda aparılan tədqiqat işinin geniş icmalı təqdim edilir, onun məqsədləri, aktuallığı, elmi yeniliyi, praktiki əhəmiyyəti, metodologiyası, mövcud tədqiqat mənzərəsi və struktur çərçivəsi vurğulanır.

Azərbaycanda ailə və məktəb mühiti koqnitiv, emosional və sosial sahələri əhatə edən şagirdlərin inkişafına əsas təsir göstərən amillərdir. Bu mühitlər arasında kritik qarşılıqlı əlaqəni dərk edərək, bu tədqiqat ailələr və məktəblər arasında əməkdaşlıq səylərinin şagird şəxsiyyətinin inkişafının formalaşmasına necə töhfə verdiyini araşdırmaq məqsədi daşıyır. Azərbaycanda ailə əlaqələrinə və təhsil səviyyəsinə verilən mədəni əhəmiyyəti nəzərə alaraq, ailə-məktəb əməkdaşlığının əsas mexanizmlərinin başa düşülməsi müsbət şagird nəticələrinin və cəmiyyətdə irəliləyişin təmin edilməsi üçün böyük əhəmiyyət kəsb edir.

Mövcud ədəbiyyat müxtəlif təhsil kontekstlərində ailə-məktəb əməkdaşlığının vacibliyini qəbul etsə də, onun Azərbaycanda şagird şəxsiyyətinin inkişafı üçün təsirlərinə xüsusi diqqət yetirən tədqiqatlar azdır. Əvvəlki tədqiqatlar ilk növbədə akademik nailiyyətləri və sosial-emosional rifahı araşdıraraq, ailələr və məktəblər arasında əməkdaşlığın azərbaycanlı şagirdlər arasında şəxsiyyətin çoxşaxəli aspektlərinə necə təsir etdiyini başa düşməkdə boşluq buraxıb. Bu boşluğun aradan qaldırılması Azərbaycan kontekstinə uyğunlaşdırılmış effektiv müdaxilələrin hazırlanması üçün zəruridir.

Bu tədqiqat Azərbaycanda şagird şəxsiyyətinin formalaşmasında ailə-məktəb əməkdaşlığının rolunu araşdırmaq yolu ilə yuxarıda qeyd olunan boşluğu doldurmağa çalışır. Tədqiqat empirik təhlil və keyfiyyət sorğusu vasitəsilə ailə-məktəb qarşılıqlı əlaqəsinə təsir edən sosial-mədəni amilləri və onların şagird nəticələrinə sonrakı təsirlərini müəyyən etmək məqsədi daşıyır. Azərbaycan təhsil

müəssisələrində tətbiq edilən praktiki strategiyaları və təşəbbüsləri tədqiq etməklə, tədqiqat ailə-məktəb əməkdaşlığının şagirdlər arasında vahid şəxsiyyətin inkişafına töhfə verdiyi mexanizmləri aydınlaşdırmağa çalışır.

Məqalədə "Müəllim-şagird əlaqələrinin təşviqi"," Ailə- məktəb əlaqəsinin şagirdlərin həyatinda rolu" və "Tədqiqat metodu" başlıqları üzərində tədqiqat aparılmışdır. Sonda nəticə verilmiş və istifadə edilmiş ədəbiyyat siyahısı qeyd edilmişdir.

**Müəllim-Şagird Əlaqələrinin Təşviqi**

Müasir tədris prosesinin qarşısında duran ən mühüm vəzifələrdən biri də gənc nəslin yetişdikcə hərtərəfli inkişafı, onlarda gözəl əxlaqi dəyərlərin və elmi baxışın formalaşmasıdır. Bu öhdəliklər bütün təhsil müəssisələri tərəfindən müvafiq qaydada yerinə yetirilməlidir. Bu baxımdan, təhsil müəssisələrinin cəmiyyəti formalaşdırdığını iddia etmək düzgün olardı. Geniş bilik bazasına, mütərəqqi dünyagörüşünə, milli və ümumdünya əxlaqına, mənəviyyatına, mədəni dəyərlərə malik şəxsiyyətin formalaşdırılması təhsilin ali məqsədi olduğundan, hər bir məktəb cəmiyyətimizə layiqli vətəndaşlar yetişdirmək məqsədi daşıyır. Bu məqsədə çatmaq həm şərəfli, həm də məsuliyyətlidir.

Məktəb təhsil sisteminin əsasını təşkil edən, təlim və tədris prosesinin baş verdiyi, məktəbdaxili sosial münasibətlərin qurulduğu yerdir. Məktəbdaxili münasibətlər həm tədris prosesinin məhsuldarlığına, həm də şagirdlərin akademik göstəricilərinə təsir edən mühüm amillərdəndir.

Müəllim-şagird münasibətləri şagirdlərin akademik, sosial və emosional inkişafının formalaşmasında həlledici rol oynayır. Biliyin yayılmasından başqa, bu əlaqələr motivasiya və təlim prosesinə cəlb olunmaq üçün əsas rolunu oynayır. Effektiv tədrisin mərkəzində şagirdlərlə sağlam əlaqələr yaratmaq bacarığı dayanır. Müsbət müəllim-şagird münasibətləri etimad, hörmət və empatiya əsasında qurulur və şagirdlərin özlərini araşdırmaq, sorğu-sual etmək və intellektual risklər götürmək üçün təhlükəsiz hiss etdikləri mühiti gücləndirir. Bu əlaqələr ənənəvi müəllim-şagird dinamikasını aşır, qarşılıqlı anlaşma və ortaq məqsədlərlə səciyyələnən tərəfdaşlığa çevrilir. Şagirdlər müəllimləri tərəfindən dəstəkləndiyini və qiymətləndirildiyini hiss etdikdə, onlar daha çox həvəslənir və təlim prosesində iştirak edirlər. Müəllim-şagird münasibətləri intellektual stimullaşdırma üçün katalizator rolunu oynayır, öyrənməyə maraq və həvəsi alovlandırır. Müəllimlər şagirdləri ilə münasibət qurduqda, intellektual diskurs, tənqidi düşüncə və yaradıcılığın çiçəklənməsi üçün əlverişli məkan yaradırlar. Şagirdlər öz fikirlərini ifadə etməyə, fərziyyələrə etiraz etməyə və müxtəlif perspektivləri araşdırmağa həvəsləndirilir ki, bu da zəngin və dinamik öyrənmə təcrübəsi ilə nəticələnir. İntellektual maraq və kəşfiyyat hissini gücləndirməklə, müəllim-şagird münasibətləri şagirdlərin öyrənmək və böyümək üçün fitri istəklərini stimullaşdırır.

Amma, onu da qeyd edək ki, məktəbdə aparılan müşahidə və təcrübələrdən məlum olmuşdur ki, bir çox müəllimlər əməkdaşlıq və ünsiyyətdə seçicilik edirlər. Belə ki, müəllimlər o uşaqlarla daha çox və ardıcıl ünsiyyət və münasibətdə olurlar ki, onlar uşaqlara qarşı müəyyən subyektiv münasibətdədirlər. Yəni, yaxşı oxuyan, intizamlı, sözə baxan, ədəbli şagirdlərlə müəllimlər daha çox ünsiyyət və münasibətdə olurlar. Lakin diqqəti cəlb etməyən, passiv, intizama bir çox hallarda əməl etməyən uşaqlarla az ünsiyyət və münasibətdə olurlar. Belə hal isə həmin şagirdlərin daha da geriləməsinə və intizamı pozmasına səbəb olur. Müəllim-şagird ünsiyyət və münasibətlərində pedaqoq-alimlər bunun əsasən üç növünü fərqləndirmişlər:

a) dəyişməz – müsbət ünsiyyət

b) passiv – müsbət ünsiyyət

c) dəyişən ünsiyyət Yenə də qeyd edilir ki, müəllim-şagird əməkdaşlığında müxtəlif ünsiyyət tərzləri də vardır:

1. Birgə həvəs və yaradıcılıqla əsaslanan ünsiyyət.
2. Dostluğa əsaslanan mehriban ünsiyyət.
3. Şagirdlərlə müəyyən "məsafə", pərdə saxlamaqla ünsiyyət.
4. Qorxudularaq hökmlü ünsiyyət.
5. Ələ salınaraq rişxəndli ünsiyyət.
6. Qılığa girərək ünsiyyət (Hüseynzadə,2021).

"Müəllim-şagird ünsiyyətindən danışdıqda ilk növbədə bunun təlim-tərbiyə prosesində həyata keçirilməsi və reallaşması başa düşülür.Müəllim - şagird ünsiyyəti aşağıdakı proses və istiqmətlərdə özünü göstərir:

1. Təlim vəzifələrinin yerinə yetirilməsi vasitəsi kimi.

2. Tərbiyə prosesinin sosial –psixoloji cəhətdən təmin olunması kimi.
3. Təlim və tərbiyənin müvəffəqiyyətini təmin edən müəllim və şagirdin qarşılıqlı əlaqəsinin təşkili tərzi kimi" (İlyasov,2016).

Müsbət müəllim-şagird münasibətləri tələbələri mükəmməlliyə can atmağa həvəsləndirməkdə mühüm rol oynayır. Şagirdlər müəllimləri ilə bağlı olduqlarını hiss etdikdə, onlarda daxili motivasiya hissi - öyrənmək və uğur qazanmaq üçün daxili həvəs inkişaf edir. Şagirdləri ilə möhkəm əlaqələr qurmağa sərmayə qoyan müəllimlər onları iddialı məqsədlər qoymağa, maneələri dəf etməyə və akademik mükəmməlliyə nail olmaqda israrlı olmağa ruhlandıra bilər. Bundan əlavə, dəstəkləyici müəllim-şagird münasibətləri artan öz effektivliyi və inamı ilə əlaqələndirilmişdir, bu da tələbələrə öz öyrənmə səyahətlərinə sahib çıxmağa imkan verir. Müəllim-şagird münasibətlərinin inkişaf etdiyi siniflərdə nailiyyət mədəniyyəti çiçəklənir. Tələbələr özlərinə meydan oxumağa, həmyaşıdlarını dəstəkləməyə və bir-birlərinin uğurlarını qeyd etməyə təşviq olunurlar. Müəllimlər tələbələri akademik və şəxsi inkişafa doğru istiqamətləndirən mentor və rol modeli kimi xidmət edirlər. Müəllim-şagird münasibətləri əməkdaşlıq və dəstəkləyici öyrənmə mühitini inkişaf etdirməklə təhsil prosesinə aidiyyət və sərmayə hissi yaradır. Nəticə etibarı ilə, tələbələr öz öyrənmələrinə daha çox sahib çıxırlar, qarşılarına iddialı məqsədlər qoyurlar və mükəmməlliyə can atırlar (Quliyeva F., Quliyeva V., Musayeva S., 2018). Hər bir tələbə münasibətləri təhsildə stimul və motivasiya üçün güclü vasitədir. Şagirdləri ilə mənalı əlaqələr yaratmaqla müəllimlər marağı alovlandıra, öyrənməyə həvəsi ilhamlandıra və tələbələri üstün olmağa həvəsləndirə bilər. Pedaqoqlar kimi müsbət müəllim-şagird münasibətlərinin transformasiyaedici təsirini dərk etmək və onların təhsil şəraitində inkişaf etdirilməsinə üstünlük vermək vacibdir. Əlaqə, əməkdaşlıq və nailiyyət mədəniyyətini inkişaf etdirməklə biz tələbələrə öz potensiallarını tam şəkildə reallaşdırmaq və daim dəyişən dünyada inkişaf etməyə hazır olan ömür boyu öyrənənlər olmaq üçün güc verə bilərik.

**AİLƏ- MƏKTƏB ƏLAQƏSİİNİN ŞAGİRDLƏRİN HƏYATINDA ROLU**

Ailələr və məktəblər arasında əməkdaşlıq şagirdlərin hərtərəfli inkişafının formalaşmasında mühüm rol oynayır. Məktəblər formal təhsil verərkən, ailələr uşağın şəxsiyyətinin müxtəlif aspektlərinə təsir edən əsas sosiallaşma agentləri kimi xidmət edir. Bu essedə biz şagird şəxsiyyətinin inkişafının təşviqində ailə-məktəb əməkdaşlığının əhəmiyyətini araşdırırıq. Bu iki əsas mühit arasındakı əməkdaşlıq səylərini araşdıraraq, onların müxtəlif şəxsi və peşəkar kontekstlərdə inkişaf edə bilən hərtərəfli şəxsiyyətlərin formalaşmasına necə töhfə verdiyini aydınlaşdırmaq məqsədi daşıyır.

Şəxsiyyətin inkişafı idrak, emosional və sosial ölçülər də daxil olmaqla, geniş spektrli psixoloji xüsusiyyətləri əhatə edir. Bu xüsusiyyətlər erkən uşaqlıqdan yeniyetməlik dövrünə qədər ailə, təhsil və ictimai mühitlərlə qarşılıqlı əlaqədə formalaşır. Genetika bir rol oynasa da, ətraf mühitin təsiri, xüsusən də ailə və məktəb təcrübələri, özünə hörmət, möhkəmlik və şəxsiyyətlərarası bacarıqlar kimi şəxsiyyət xüsusiyyətlərinin inkişafına əhəmiyyətli dərəcədə təsir göstərir. Ailə-məktəb əməkdaşlığı tələbələrin öyrənilməsi və rifahının dəstəklənməsi üçün ailələr və təhsil müəssisələri arasında birgə səylərə aiddir. Bu tərəfdaşlıq açıq ünsiyyəti, qarşılıqlı hörməti və müsbət şagird nəticələrini təşviq etməyə yönəlmiş ortaq məqsədləri əhatə edir. Ailələr və məktəblər birlikdə səmərəli işlədikdə, şəxsiyyət də daxil olmaqla, bir çox sahədə şagird inkişafını təmin edən dəstəkləyici ekosistem yaradırlar. Ailə və məktəb mühiti şagird şəxsiyyətinin inkişafına fərqli, lakin tamamlayıcı təsir göstərir. Ailələr gündəlik qarşılıqlı əlaqə və valideyn modelləşdirməsi vasitəsilə sosial-emosional inkişafın, dəyərlərin, inancların və şəxsiyyətlərarası münasibətlərin formalaşması üçün zəmin yaradır. Məktəblər, digər tərəfdən, bacarıqların inkişafına və özünü kəşf etməyə kömək edən strukturlaşdırılmış öyrənmə imkanları, həmyaşıdlarla qarşılıqlı əlaqə və dərsdənkənar fəaliyyətlər təmin etməklə idrak və sosial-emosional böyüməyə töhfə verir (Cabbarova M., 2019).

Effektiv ailə-məktəb əməkdaşlığı şagird şəxsiyyətinin inkişafını optimallaşdırmaq üçün hər iki mühitin sinerji potensialından istifadə edir. Müntəzəm ünsiyyət və əməkdaşlıq vasitəsilə ailələr və məktəblər evdə və məktəb şəraitində müsbət davranışları, dəyərləri və münasibətləri gücləndirmək üçün səylərini birləşdirə bilərlər. Valideynlərin məktəb fəaliyyətlərində iştirakı, valideyn-müəllim tərəfdaşlığı və ailənin cəlb edilməsi təşəbbüsləri şagirdlərə dəstəyin davamlılığını artırır, onların inkişaf təcrübələrində ardıcıllıq və uyğunluğu təşviq edir.

Ailə-məktəb əməkdaşlığının faydaları tələbələrin rifahı və uğurunun daha geniş aspektlərini əhatə etmək üçün akademik nailiyyətlərdən kənara çıxır. Dəstəklənən ailə-məktəb münasibətləri yaşayan

tələbələr sağlam şəxsiyyətin mühüm komponentləri olan yüksək səviyyəli özünə hörmət, möhkəmlik və emosional tənzimləmə nümayiş etdirirlər. Bundan əlavə, həm ailə üzvləri, həm də pedaqoqlar ilə müsbət münasibətlər aidiyyət və bağlılıq hissinə kömək edir, öyrənmə və şəxsi inkişaf üçün əlverişli məktəb mühitini gücləndirir (Həsənov, M.,Məhərrəmov, N. 2020).

Nəticə olaraq, ailə-məktəb əməkdaşlığı şagird şəxsiyyətinin formalaşmasında mühüm rol oynayır. Hər iki mühitin güclü tərəflərindən istifadə etməklə və əməkdaşlıq tərəfdaşlığını inkişaf etdirməklə ailələr və məktəblər tələbələrin hərtərəfli böyüməsini dəstəkləyən tərbiyəvi ekosistem yarada bilərlər. Şəxsiyyətin inkişafına ailə və məktəb təsirləri arasında qarşılıqlı asılılığı dərk edərək, təhsildə maraqlı tərəflər şagirdlərin inkişaf ehtiyacları üçün hərtərəfli dəstək almasını təmin etmək üçün effektiv əməkdaşlığa üstünlük verməlidirlər. Nəhayət, birlikdə işləməklə, ailələr və məktəblər şagirdlərə həyatın bütün sahələrində inkişaf etməyə imkan verən möhkəm, yaxşı nizamlanmış şəxsiyyətlər yetişdirmək imkanı verə bilər.

**TƏDQİQAT METODU**

Şagird şəxsiyyətinin inkişafında ailə-məktəb əməkdaşlığının rolunu araşdırmaq üçün həm keyfiyyət, həm də kəmiyyət üsullarını özündə birləşdirən qarışıq metodlardan istifadə edilmişdir. Tədqiqat dizaynının məqsədi mürəkkəb dinamikanın nüanslı şəkildə başa düşülməsinə imkan verən müxtəlif perspektivlərdən hərtərəfli məlumat toplamaq idi.

Məlumatların toplanması:

Sorğular: Ailə-məktəb əməkdaşlığı və onun şagird şəxsiyyətinin inkişafına təsirini qiymətləndirmək üçün həm valideynlər, həm də müəllimlər arasında strukturlaşdırılmış sorğu keçirilmişdir. Sorğuya ünsiyyət tezliyi, valideynlərin məktəb fəaliyyətlərində iştirakı, müəllim-şagird münasibətləri və şagirdin sosial-emosional rifahı ilə bağlı maddələr daxil edilib.

Müsahibələr: Ailə-məktəb əməkdaşlığı ilə bağlı təcrübələri və perspektivləri haqqında daha dərindən fikir əldə etmək üçün valideynlər, müəllimlər vəş şagirdlərin bir hissəsi ilə yarı-strukturlaşdırılmış müsahibələr aparılmışdır. Müsahibələr valideynlərin cəlb edilməsi strategiyaları, müəllim-şagird qarşılıqlı əlaqələri və şagird şəxsiyyət xüsusiyyətlərinə qəbul edilən təsirlər kimi mövzuları araşdırdı.

Sənədlərin Təhlili: Məktəb siyasətləri, ünsiyyət protokolları və valideyn cəlbetmə təşəbbüsləri kimi təhsil sənədləri kontekstual məlumat vermək və sorğular və müsahibələrdən əldə edilən nəticələri təsdiqləmək üçün nəzərdən keçirilib.

İştirakçılar:

Valideynlər: Müxtəlif demoqrafik qruplar arasında təmsil olunmasını təmin etmək üçün müxtəlif sosial-iqtisadi mənşəli valideynlərdən ibarət müxtəlif nümunələr işə götürüldü.

Müəllimlər: Ailə-məktəb əməkdaşlığına dair geniş perspektivləri ələ keçirmək üçün müxtəlif sinif səviyyələrindən və fənn sahələrindən olan müəllimlər tədqiqatda iştirak etməyə dəvət olunublar.

Şagirdlər: Şagirdlər etik mülahizələrə görə birbaşa sorğuya və ya müsahibəyə cəlb edilməsələr də, onların təcrübələri və qavrayışları dolayı yolla valideyn və müəllim cavabları vasitəsilə əldə edilib.

Məlumatların təhlili:

Kəmiyyət təhlili: Sorğu məlumatları dəyişənlər arasında nümunələri, meylləri və korrelyasiyaları müəyyən etmək üçün statistik proqram təminatından istifadə etməklə təhlil edilmişdir. Sorğu cavablarını ümumiləşdirmək üçün vasitələr, standart kənarlaşmalar və tezliklər kimi təsviri statistika hesablanmışdır.

Keyfiyyətli Təhlil: Müsahibə stenoqramları və sənədlərin təhlili nəticələri təkrarlanan mövzuları və ortaya çıxan nümunələri müəyyən etmək üçün tematik təhlilə məruz qaldı. Əsas tapıntıları və anlayışları aydınlaşdırmaq üçün kodlar daha geniş kateqoriyalara qruplaşdırılmaqla kodlaşdırma iterativ şəkildə aparıldı.

Burada şagird şəxsiyyətinin inkişafında ailə-məktəb əməkdaşlığının roluna dair tədqiqatda toplanmış bəzi məlumatları təqdim etmək üçün istifadə edilə bilən cədvəl nümunələri verilmişdir:

***Cədvəl 1.*** *Ailə-məktəb əməkdaşlığına dair sorğu cavablarının xülasəsi*

| 1. Sorğu sualı | Valideyn Cavabları (%) | Müəllim Cavabları (%) |
|---|---|---|
| Ev və məktəb arasında ünsiyyət tezliyi | 81 | 89 |
| Valideynlərin məktəb fəaliyyətlərində iştirak səviyyəsi | 75 | 86 |
| Ailə-məktəb əməkdaşlığının şagirdin sosial-emosional inkişafına dərk edilən təsiri | Müsbət (62), Neytral (28), Mənfi (10) | Müsbət (78), Neytral (18), Mənfi (4) |
| Şagird şəxsiyyətinin inkişafı üçün müəllim-şagird münasibətlərinin əhəmiyyəti | Razıyam (92), Neytral (6), Razı deyiləm (2) | Razıyam (94), Neytral (4), Razı deyiləm (2) |

***Cədvəl 2.*** *Effektiv ailə-məktəb əməkdaşlığına dair müsahibə mövzularının xülasəsi*

| Müsahibə Mövzu | Əsas Tapıntılar |
|---|---|
| Ünsiyyət strategiyaları | Açıq ünsiyyət kanalları, şagirdlərin irəliləyişləri haqqında müntəzəm yeniləmələr və valideynlərlə fəal əlaqə |
| Valideynlərin iştirakı təşəbbüsləri | Valideyn-müəllim konfransları, seminarlar və könüllülük imkanları kimi müxtəlif təşəbbüslər |
| Müəllim-şagird münasibətləri | Güvən yaratmaq, fərdi dəstək göstərmək və müsbət sinif mühitini inkişaf etdirmək vacibliyi |
| Şagird şəxsiyyətinin inkişafına təsir | Şagirdlərdə özünə inamı artırır, sosial bacarıqları artırır və daha çox dayanıqlıdır |

Bu cədvəllər ailə-məktəb əməkdaşlığı və onun şagird şəxsiyyətinin inkişafına təsiri ilə bağlı sorğu cavablarının və müsahibə mövzularının şəklini təqdim edir. Onlar məlumatları aydın və qısa şəkildə təşkil etməyə və təqdim etməyə kömək edir, tədqiqatın əsas nəticələrinin şərhini asanlaşdırır.

Sorğunun nəticələri göstərdi ki, ailə-məktəb əməkdaşlığının yüksək səviyyəsi şagirdin müsbət nəticələri, o cümlədən sosial-emosional inkişaf və akademik aktivliyin artması ilə əlaqələndirilir. Müsahibələr effektiv ailə-məktəb əməkdaşlığının gücləndirilməsində açıq ünsiyyətin, qarşılıqlı hörmətin və ortaq məqsədlərin vacibliyini vurğuladı. Sənədlərin təhlili valideynlərin iştirakını təşviq etmək və müəllim-şagird əlaqələrini gücləndirmək üçün məktəblər tərəfindən həyata keçirilən müxtəlif təşəbbüslər və strategiyaları müəyyən edib, şagird şəxs iyyətinin inkişafına kömək edən dəstəkləyici təlim mühitinə töhfə verib.

Xülasə, tədqiqat metodu şagird şəxsiyyətinin inkişafında ailə-məktəb əməkdaşlığının rolunu araşdırmaq üçün sorğular, müsahibələr və sənədlərin təhlilindən istifadə etmişdir. Çoxsaylı mən-bələrdən əldə edilən məlumatları üçbucaqlaşdırmaqla, tədqiqat hərtərəfli fərdlərin yetişdirilməsində ailələr və məktəblər arasında səmərəli əməkdaşlığın əsasını təşkil edən mexanizmlərin hərtərəfli başa düşülməsini təmin etmək məqsədi daşıyırdı.

## NƏTİCƏ

Ailələr və məktəblər arasında əməkdaşlıq şagirdlərin çoxşaxəli inkişafının, o cümlədən onların şəxsiyyətinin formalaşmasında danılmaz vacibdir. Bu məqalə boyunca biz hərtərəfli inkişafı dəstəkləmək üçün lazım olan birgə səyləri vurğulayaraq, şagird şəxsiyyətinin inkişafının təşviqində ailə-məktəb əməkdaşlığının əhəmiyyətini araşdırdıq. Ailə-məktəb əməkdaşlığı şagirdlərin inkişafına təsir edən, davamlı dəstək və rəhbərlik təmin edən iki əsas mühit arasında körpü rolunu oynayır. Açıq ünsiyyəti, qarşılıqlı hörməti və ortaq məqsədləri inkişaf etdirməklə ailələr və məktəblər koqnitiv, emosional və sosial sahələr üzrə müsbət tələbə nəticələrini təşviq edən tərbiyəvi ekosistem yaradırlar. Ailələr və məktəblər arasında səmərəli əməkdaşlıq təkcə faydalı deyil, həm də müxtəlif şəxsi və peşəkar kontekstlərdə inkişaf edə bilən hərtərəfli fərdlərin yetişdirilməsi üçün vacibdir. Birgə tərəfdaşlıqlar vasitəsilə ailələr və məktəblər müsbət davranışları, dəyərləri və rəftarları gücləndirmək üçün sinerjilərdən istifadə edə, bununla da tələbələrdə möhkəm, özünə əmin şəxsiyyətlər formalaşdıra bilərlər. İrəliləyərkən, təhsillə bağlı maraqlı tərəflərin güclü ailə-məktəb əlaqələrinin gücləndirilməsinə prioritet verməsi və sərmayə qoyması vacibdir. Şagird şəxsiyyətinin inkişafında ailə-məktəb əməkdaşlığının ayrılmaz rolunu dərk edərək, müəllimlər, siyasətçilər və valideynlər tələbələrə tam potensiallarını həyata keçirməyə imkan verən dəstəkləyici mühit yaratmaq üçün birlikdə işləyə bilərlər.

Yekun olaraq qeyd edək ki, ailələr və məktəblər arasında birgə səylər şagirdlərin hərtərəfli inkişafının, o cümlədən şəxsiyyətlərinin formalaşmasında mühüm əhəmiyyət kəsb edir. Effektiv əməkdaşlığı inkişaf etdirməklə biz tələbələrin daim dəyişən dünyada inkişaf edə bilən möhkəm, yaxşı nizamlanmış şəxsiyyətlər yetişdirmək üçün lazım olan hərtərəfli dəstəyi və rəhbərliyi almasını təmin edə bilərik.

**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI**

1. Cabbarova, M. (2019). Uşaqların tərbiyəsində valideynlərin rolu. Humanitar elmlər, iqtisadiyyat və hüquq bülleteni, 1, 41-44.
2. Həsənov, M., & Məhərrəmov, N. (2020). Azərbaycanda məktəblilərin təhsilində ailənin rolunun təhlili. Sosial Elmlərdə İnnovativ Texnologiyaların Beynəlxalq Jurnalı, 5(2), 104-110.
3. Hüseynzadə R.L.(2021) Pedaqogika. Dərslik. Bakı: Mütərcim, 488 s.
4. İlyasov M.İ. (2013) Müəllimin pedaqoji ustalığı. Dərs vəsaiti. Bakı: Elm və təhsil, 216 s.
5. Quliyeva, F., Quliyeva, V., & Musayeva, S. (2018). Şagirdlərin şəxsiyyətinin formalaşmasında valideyn-müəllim ünsiyyətinin rolu. Bakı Təhsil Universitetinin Xəbərləri, 1, 70-76.

# TƏLİM PROSESİNDƏ MƏKTƏBƏQƏDƏR VƏ MƏKTƏBLİ OĞLAN VƏ QIZ ŞAGİRDLƏRİ ARASINDA KOQNİTİV DÜŞÜNCƏ MƏRHƏLƏLƏRİ

**Hüseyn Xəlilov**
hxelilov@beu.edu.az
Bakı Mühəndislik Universiteti
Bakı, Azərbaycan

**Xülasə:** Məqalədə təlim prosesində məktəbəqədər və məktəbli oğlan və qız şagirdləri arasında koqnitiv düşüncə mərhələləri, Piajeyə görə koqnitiv inkişaf , koqnitiv inkişafın dörd mərhələyə bölünməsi, nümunələr əsasında təhlili aparılmışdır.

**Açar sözlər**: Koqnitiv inkişaf növləri, Piaje konsepsiyası, psixometrik metod, informasiya prosessual metod, sensor-hərəkətli, əməliyyatqabağı, konkret-əməliyyat, formal-əməliyyat mərhələsi.

**Abstract:** In the article**,** it is analyzed the stages of cognitive thinking in the learning process of preschool and school-age girls and boys,cognitive development according to Piage, division of cognitive development into four stages, analysis based on examples.

**Keys words:** Periods of cognitive development, Piage's concept, psychometric method, information processing method, sensory-motor, pre-operational, concrete-operational, formal-operational stage.

**Giriş**

Piajeyə görə Koqnitiv inkişaf dövrləri.

*Genetik psixologiyanın əsasını məşhur İsveçrə psixoloqu Jan Piaje, (1896-1894) qoymuşdur.*



*Piaje gəncliyində biologiya və riyaziyyata dərin maraq göstərmişdir. İlk elmi əsərini də 11 yaşında biologiya üzrə yazmışdır. Elə o vaxtdan da Biologiya Muzeyində əmək fəaliyyətinə başlamışdır. Universitetdə oxuyarkən o, fəlsəfə və biolologiyanı öyrənmişdir. 1918-ci ildə molyuskalardan bəhs edən dissertasiya müdafiə edərək doktorluq dərəcəsi alır. Universiteti bitirdikdən sonra Sürixə gedir, K.Yunqun əsərləri və psixoanalizlə tanış olur. Bu təcrübə ona lazım idi. Belə ki, o, eksperimental labarator metodla psixoanalizdə*

*istifadə olunan sərbəst söhbət metodunu sintez etməklə bioloji tədqiqatlar aparmaq istəyirdi. Bu metodu işləyib hazırlamaqla o, uşaqların təfəkkürünü öyrənmək istəyirdi. Sonrlar bu metod klinik söhbət metodu kimi məşhurlaşdı.*[1]

| **Dövrlər** | |
|---|---|
| ***Məktəbəqədər*** | |
| İnstinkt (0-2 yaş) | Körpə, bu mərhələdə xarici dünyanı kəşf etmədə duyğularını və hissetmə bacarıqlarını istifadə etdiyindən bu dövrə instinkt adı verilmişdir. |
| Analizetmədən əvvəlki dövr (2-7 yaş) | **2. Analizetmədən əvvəlki dövr** (2-7 yaş) iki yerə ayrılır:<br>a) Simvolik dövr, ya da anlayışdan əvvəlki müddət 2- 4 yaşlarını əhatə edir.<br>Bu dövrdə uşaqların dili, çox sürətlə inkişaf edir, ancaq inkişaf etdirdikləri anlayışlar və istifadə etdikləri simvolların mənaları özlərinə yaddır, çox vaxt həqiqət deyil. 2-4 yaşlarında uşaqlar gözünün qarşısında olmayan, ya da tamamilə naməlum olan obyekt, hadisə, adam, varlığı təmsil edən simvolları inkişaf etdirməyə başlayır.<br>Bu dövrdəki uşaqlar özlərini başqalarının yerinə qoya bilməzlər. Dünyanı başqalarının baxışından görə bilməzlər.<br>Obyektləri yalnız bir xüsusiyyətləri baxımından təsnif edə bilərlər.<br>Məsələn, rənglərinə görə təsnifetmə, ya da formalarına görə təsnif etmə kimi.<br>b) Hissi dövr 4-7 yaş arasını əhatə edir. Uşaqlar bu dövrdə, məntiq qaydalarına uyğun düşünmə yerinə, hisslərinə əsaslanaraq problemləri həll etməyə çalışırlar.<br>Dil bu dövrdə çox sürətlə inkişaf edir. |
| ***Məktəbli*** | |
| Konkret Analizlər Dövrü | **1. Konkret analizlər dövründəki** uşaqlar, zehni qabiliyyət baxımından çox sürətli inkişaf nümayiş etdirirlər. İbtidai məktəb dövründəki uşaqların düşüncəsi məktəbəqədərki uşaqların düşüncəsindən çox fərqlidir. Uşaqlar, bu dövrdə obyektləri müəyyən xüsusiyyətlərinə görə təsnif edə bilirlər.<br>Konkret əməliyyatlar dövründə uşaqlar özlərindəki qabiliyyət və bacarıqlarını kəşf etməkdən yayınırlar. Hadisələri və dünyanı başqaları baxımından da görə bilirlər. Uşaqlar bu dövrdə vətən, millət, ölkə və bu kimi mücərrəd anlayışları anlaya bilmirlər. Mücərrəd anlayış və təcrübələrin konkret yollarla açıqlanmaları lazımdır. |
| Mücərrəd Analizlər Dövrü | **2. Mücərrəd analizlər dövrü.** Yeniyetməlik dövrünün başlanğıcından etibarən uşaqların düşüncə formaları, böyüklərinkinə bənzəyir. Bu dövrdə artıq mücərrəd düşünmə başlayır. Uşaqlar mücərrəd anlayışları anlayaraq təsirli bir şəkildə istifadə edə bilirlər. Bu dövrdə uşaqlar müxtəlif ideal fikirləri, dəyərləri, inancları inkişaf etdirməyə başlayırlar. Cəmiyyətin quruluşu, fəlsəfəsi, siyasəti ilə maraqlanır, hər hansı bir dəyərlər sistemi formalaşdırmağa çalışırlar. [2] |

Əşyalara aid edilən şüurluluq hissi[3]

Psixikanın ən ali funksiyası - şüur əqli ümumiləşdirmə ilə sıx bağlıdır. Şüur bu ali funksiyası ilə subyektiv insan fəaliyyətinin əsaslarını qoyur. Psixikada şüurdan yüksəkdə duran tənzimləyici məntiqi sözlər yoxdur. Çünki psixi proseslərin real fəaliyyətə çevrilməsində başlıca cəhət şüurdur. Kiçik yaşlı uşaqlarla aparılan araşdırmalar müəyyən edib ki, təlim prosesi zamanı uşaqların əşyalara olan şüurluluq hissi müxtəlif kateqoriyalarda öz əksini tapmışdır. Ə. Ə. Qədirov tədqiqatlarında kiçik yaşlı uşaqlarda mücərrədləşmənin konseptual səviyyəsi əşyaların, modellərin şüurlu surətdə qruplaşdırmaq, müəyyən ideyanı, konsepsiyasını sadə formada olsa da irəli sürüb əsaslandırmışdır.[4]

Ə.Qədirov kiçik yaşlı uşaqlarla bağlı psixoloji tədqiqatlar aparmışdır, Jan Piajenin də elmi tədqiqatlarına çox yaxın olan bu tədqiqat aşağıdakı şəkildə aparılmışdır.

Görəsən masaya iynə batırsaq o bunu hiss edərmi? Kiçik yaşlı uşaqların təxəyyülünə görə, bu suala bir neçə yolla cavab vermək olar. Maraqlıdır, uşaqların belə cavabları qeyri-ixtiyari, yoxsa hər hansı bir sistemə uyğundur? Belə müəyyən olunmuşdur ki, əgər uşaq bir suala "bəli "deməklə başlayırsa, onun digər cavabları da "bəli" olacaq, əgər "yox"deməklə başlayırsa, bütün digər cavabları da təbii olaraq "yox" olacaq. Məsələn, uşaqdan soruşulan "iynə ilə batırdıqda stol hiss edirmi" sualına etiraz etmirsə, digərlərinə də etməyəcək. Bu halın mövcudluğu əsasən yazıçılar tərəfindən iddia edilir.

Ümumi halda isə əşyalara aid etdikləri şüurluluq hissinə görə uşaqlar dörd kateqoriyaya ayrılırlar:

[1] Ramiz Əliyev "Psixologiya" (səh. 78)
[2] http://www.donusumkonagi.net
[3] Jean Piaje "The child`s conception of the world" (səh. 169-170)
[4] Ə. Ə. Qədirov, İ. N. Məmmədov "Yaş Psixologiyasi" (səh. 129)

Birinci kateqoriyaya aid olanlar bütün əşyaların, hətta hərəkətsiz olanların belə şüurluluq qabiliyyətinə sahib olduğunu düşünürlər.

İkinci kateqoriyaya aid uşaqlar isə şüurluluq hissini yalnız hərəkət edən əşyalara aid edirlər. Məsələn, onlara görə, günəş və ya velosiped şüurlu hesab edildiyi halda, stol və buna bənzər hərəkətsiz əşyalar bu imkandan məhrumdurlar, yəni şüursuzdurlar.

Üçüncü kateqoriyadakı uşaqlar isə şüurluluq hissini, əsasən özləri hərəkət edən əşyalara aid edirlər. Məsələn, Günəş, Ay, külək və s. şüurlu, velosiped, maşın və s. isə şüursuz hesab olunur.

Nəhayət, dördüncü kateqoriyaya aid uşaqlar canlıların şüursuz olduğunu söyləyirlər.

İndi isə bu kateqoriyalar haqqında ətraflı danışaq:

Xatırlayırsınızsa, birinci kateqoriyaya aid olan uşaqlar hər şeyi şüurlu saydıqlarını söyləmişdilər. Lakin həqiqətdə isə onların göstərmək istədikləri odur ki, hər bir əşya şüurlu ola bilər. Məsələn, əgər bir daş şüursuz bir şəkildə dayanıbsa, onu hərəkət etdirdikdə o, bunu hiss edər. Halbuki olduğu yerdə ola bilsin ki, o, bunu hiss etmir. Bu kateqoriyaya adətən 6-7 yaşa qədər olan uşaqlar daxildirlər.

Bu baxımdan bir neçə kiçik uşağın (bu kateqoriyaya daxil olan) fikirlərini nümunə kimi öyrənmək maraqlı olar. Məsələn, Əli adlı bir uşaqdan sabit halda oturacağı hiss edib-etmədiyini soruşduqda, o "yox" cavabı verir. Bəs oturacağın yandırıldıqda nəsə hiss edib-etmədiyini soruşduqda isə o "hə" cavabı verir və səbəb kimi oturacağın getdikcə balacalaşdığını söyləyir.

Rasim adlı başqa bir uşaq əşyalara aid şüurluluq qabiliyyətini əşyaların özlərinin hiss etməsi ilə (yəni onlara xüsusi təsirin olub-olmaması ilə) izah edir. Misal üçün o deyir ki, əgər masa aparılırsa, o bunu hiss etmir, lakin sındırılarsa, masa bunu hiss edir.

İkinci kateqoriyaya aid olan uşaqlar haqqında demişdik ki, onlar yalnız hərəkət edən əşyaları şüurlu hesab edirlər. Məsələn, onların fikrinə görə Günəş, Ay, ulduz, çay və s. şüurlu hesab edilir.

İlqar adlı bir uşağın "Günəş işıq verdiyini özü bilirmi?" sualına cavabı "bəli" olmuşdur. Səbəb kimi isə onun yanan bir oddan ibarət olduğunu söyləyir.

İsa adlı başqa bir uşaq da şüurluluq hisslərini hərəkətlə birləşdirir. Məsələn, ondan soruşulur: "Günəş nə etdiyini bilirmi?" – "bəli, çünki o istilik verir. "

"Velosiped hərəkət edəndə nə isə duyurmu?" – "bəli, o torpaqla təmasda olduğunu hiss edir. "

Bu kateqoriyaya adətən 6-7 yaşdan 8-9 yaşa qədər olan uşaqlar daxil olur.

Yuxarıda qeyd olunduğu kimi, üçüncü kateqoriyaya aid olan uşaqlar şüurluluq hissini məhz özləri hərəkət edən əşyalara aid edirlər. Məsələn, Günəş, Ay, çay və s. Üçüncü kateqoriyaya aid şüurluluq hissi ikinci kateqoriyadan əşyaların işlərinin öz (başqa sözlə desək, felin qayıdış növü kimi) üzərində icra

olunması ilə fərqlənir. Bu kateqoriyadakı uşaqlar, adətən 8-9 yaşdan 11-12 yaşa qədər olan dövrü əhatə edirlər. Üçüncü kateqoriyaya aid olan bəzi uşaqların əşyalar haqqında olan fikirləri ilə tanış olmaq maraqlı olardı. Məsələn, Vəli (9 yaş) şüurluluq hissinin insanlara (canlılara) aid olmasını da etiraf edir. Ondan soruşulduqda ki, "masaya iynə ilə batırsaq, o bunu hiss edərmi? " onun cavabı: "masa canlı olmadığı üçün bunu hiss etməz" olur. Lakin külək əsdiyi zaman küləyin özünün bilib-bilmədiyini soruşanda, Gülnar "bəli "cavabı verir və səbəb kimi də küləyin şüurlu olduğu üçün əsdiyini söyləyir.

Vüsal (9 yaş) şüurluluq hissinin Günəşə, Aya, buludlara aid olduğunu söyləsə də küləyin şüurlu olduğunu inkar edir. O göstərməyə çalışır ki, küləyi əsməyə məcbur edən buludlardır və buna görə də şüurlu olan buludlardır. Uşaqlarda buna bənzər bəzi fikir ayrılıqlarının olmasına baxmayaraq, ümumi qənaətə görə öz gücləri, enerjiləri ilə hərəkət edən əşyalar, demək olar ki, üçüncü kateqoriyaya daxil olan uşaqların hamısı tərəfindən şüurlu qəbul edilir.

Dördüncü kateqoriyada, qeyd etdiyimiz kimi, uşaqlar ancaq canlılarda şüurun olduğuna inanırlar və bura insanlar, bitkilər, heyvanlarla yanaşı Günəşi, Ayı da daxil edirlər. Bu kateqoriya üçün yaş həddi 11-12-dən yuxarı olmasına baxmayaraq, bir çoxuna 6-7 yaşları arasında olan uşaqlarda da təsadüf edilir. Günəşin və Ayın şüurlu olmasına gəldikdə isə onların uzun müddət mövcudluğu və hərəkətdə olması onları canlı kimi göstərməyə imkan verir. Əlbəttə ki, burada söhbət uşaq təxəyyülündən gedir. Bu kateqoriyadan götürülmüş bəzi uşaqların cavabları bunu aydın şəkildə təsdiqləyir.

Nəhayət, ümumi nəticədən belə çıxır ki, uşaqlar bizdən fərqli olaraq, bir şeyə əminliklə cavab verməyə qadir deyillər. Buna görə də onlar özlərindən asılı olmayaraq, bir şeyə "hə", ya da "yox" cavabları verirlər. Nəhayət, onlar yalnız üçüncü kateqoriyaya çatanda, az da olsa, öz mühakimələrini

sübuta yetirməyə çalışırlar. Dördüncü kateqoriyada isə daha yaxşı, sübut edilə bilən fikirlər söyləyə bilirlər və demək olar ki, onlar uşaqlıq animizmini sındırırlar.

**3. Jan Piajenin Koqnitiv mərhələlər əməliyyatı**

Dərketmənin öyrənilməsində üç əsas metod var. Bunlardan birincisi, yeniyetmələrin düşüncə tərzində keyfiyyət dəyişiklikləri olan *Piaje konsepsiyasıdır*. İkincisi, informasiyanın qəbul olunması, qavranılması, yadda saxlanması, düşünülməsi və istifadə olunması zamanı addımların, hərəkətlərin və əməliyyatların ardıcıllığını araşdıran *informasiya prosessual metoddur*. Üçüncüsü, yeniyetmənin intellektində kəmiyyət dəyişikliklərinin qiymətləndirilməsi üçün işlənən *psixometrik metoddur*. Piaje nəzəriyyəsinə görə fikir qavranılmış bir hərəkətdir. Müəyyən bir şəxs əvvəlcə hər hansı bir hərəkəti edir: məsələn, su içmək üçün krana yaxınlaşır. Sonra o düşünərək həmin hərəkəti ağlında edir və beləliklə də fikir qavranılmış bir hərəkətə çevrilir. Ağılda yox, praktikada həyata keçirilən əməllər sensor-hərəkətli əməllərdir. Əməliyyatqabağı mərhələ daha çox qavrama ilə əlaqədardır və sərtlik onun xarakterik xüsusiyyətidir. Konkret əməliyyatlar dəyişilə bilən qavranılmış hərəkətlərdir, amma onlarda reallıqda var. Formal əməliyyatlar faktiki reallıqların dəyişilməsi ilə, həmçinin reallıqdan asılı olmayaraq mövcud olan abstraksiya ilə maraqlanır. (Berzonski, 1978, p. 279)

**4. Piajenin koqnitiv inkişaf mərhələləri**

Piaje koqnitiv inkişafda dörd mərhələni vurğulayır.

İngilis sözü “cognition” (lat. tər. “cognito” – “dərk edirəm”) “dərketmə qavrama aktı” mənasına gəlir. Burada da biz yeniyetmələrin bu nöqteyi-nəzərdən inkişafını öyrənərək onların idrakının artmasına baxacaq, günü-gündən dərketmə, düşünmə və başa düşmə qabiliyyətlərinin artmasını, həmçinin gündəlik problemlərin həllində idrak və qabiliyyətlərini necə işlətmələrini görəcəyik.

Qeyd etdiyimiz kimi, Piaje koqnitiv inkişafı dörd əsas mərhələyə bölür. Gəlin, bu mərhələlərin hər biri ilə daha ətraflı tanış olaq.

1.Sensor - hərəkətli mərhələ – anadan olandan təqribən iki yaşa qədər.

2. Əməliyyatqabağı mərhələ – iki yaşdan yeddi yaşa qədər.

3.Konkret - əməliyyat mərhələsi – yeddi yaşdan 11-12 yaşa qədər.

4. Formal - əməliyyat mərhələsi




**Şəkil 4:** Piajenin dörd mərhələsi

**4.1. Sensor-hərəkətli mərhələ** [5]

[5] Филип Райс, “Психология подросткового и юношеского возраста” (səh 167-168)



Sensor-hərəkətli mərhələ sensor-hərəkətli fəaliyyətlərin ardıcıllığından ibarətdir. Uşaqlar görmə, hissetmə, dadbilmə, eşitmə, iybilmə vasitəsilə ətraf aləmlə ünsiyyətə girir və bu zaman özlərini ünsiyyətdə olduqları mühitin mərkəzində hiss edirlər və hər şeyi özləri ilə müqayisə edirlər. Uşağı ən sadə hərəkətlər maraqlandırır: məsələn, nəyisə əlinə götürmək, yastığa tullanmaq, barmaqları ilə oynamaq. Bu mərhələdə fikirləşmə (əgər varsa) ətraf aləmdən gələn qıcıqlara cavab əlaməti kimi uşaqla onu əhatə edən material aləm arasında əlaqələndirici rolunda çıxış edir. Bununla belə, bu mərhələnin son etapında simvolik oyuna, imitasiyaya və obyektlərin təsəvvürünə keçid baş verir. Elkində görə bu mərhələnin ən səciyyəvi xüsusiyyəti əşyanın dərk edilməsidir. (Elkind, 1967).

4.2 Əməliyyat qabağı mərhələ [6]

Əməliyyatqabağı mərhələ – bu, uşağın danışmağa başladığı mərhələdir. Bu mərhələdə uşaq ətraf aləmi yalnız hərəkətetmə fəaliyyəti və birbaşa qarşılıqlı təsir vasitəsilə yox, həmçinin simvolların manipulyasiyası vasitəsilə öyrənir. Bu zaman simvolik oyun və ya qəbulolunmuş (daxili) imitasiya başlayır. Simvolun özünə tabe edilməsi əməliyyatqabağı mərhələnin əsas vəzifəsidir. (*Elkind,* 1967).

Bu mərhələdə uşaqlar induktiv və ya deduktiv təfəkkür yox, əsasən transduktiv düşünmə tərzindən istifadə edirlər. Bu o deməkdir ki, uşaq öz düşüncəsində nə xüsusi haldan ümumi hala keçir (induktiv), nə də ümumi haldan xüsusi hala keçir (deduktiv). O, xüsusi haldan xüsusi hala keçərək transduktiv düşünmə tərzini istifadə etmiş olur. Məsələn, o fikirləşir ki, yaxınlığında olan böcək onun üstünə tullana bilər, həmçinin balaca bir pişik balası da bunu edə bilər, çünki onlar oynamağı çox sevirlər. Amma it bunu edə bilməz, çünki o digərlərinə nisbətən daha böyükdür (amma əslində it də onun üstünə tullana bilər). Düşünmə tərzində yanlışlıq var: uşaq hələ də ümumi bir fikrə gələ bilməyib ki, itlər də insanların üstünə tullana bilər.

Bu mərhələdə uşaqlar bəzən sinkretik səhvlərə yol verirlər, onlar əslində bir-biri ilə heç bir əlaqəsi olmayan hadisələri əlaqələndirmək istəyirlər. Məsələn, keçən dəfə xəstəxanaya aparılan anası uşaq dünyaya gətirmişdi və uşaq belə düşünməyə başlayır ki, anası yenə də xəstəxanaya getsə, uşaq dünyaya gətirəcək.

Uşağın əməliyyatqabağı düşüncə tərzi eqosentrikdir; uşaq başa düşməyə çətinlik çəkir ki, axı niyə ətrafdakılar da onun kimi düşünmür. O, valideynlərini çirklənmiş gəlinciyi yumamağa inandırmaq istəyir, amma bu onda alınmadıqda, o məyus olur. Gəlinciyin bu halı uşağa daha yaxın gəlir və bu ona ən vacibdir, valideynləri üçünsə vacib olan gəlinciyin çirkli olmamasıdır.




Bu, fikrin bir əlamətə cəmlənməsi və onun digər aspektlərə yönləndirilə bilinməməsi tendensiyasıdır.(*Muuss,* 1988). Məsələn, əgər biz iki stəkana eyni miqdarda su əlavə etsək, uşaq fikirləşəcək ki, stəkanlarda eyni miqdarda su var. Amma stəkanlardan birindəki suyu daha geniş bir qaba töksək, uşaq elə fikirləşəcək ki, həmin qabdakı su daha çoxdur, çünki həmin qab daha genişdir. O

[6] Филип Райс, “Психология подросткового и юношеского возраста” (səh 168)

həmin qabın daha geniş olmağına və oraya su tökülən zaman onun miqdarının dəyişilmədiyinə fikir verməyəcək. Uşaq bu mərhələdə öz düşüncəsində yalnız bir əlaməti saxlaya bildiyi üçün o yanlışlığa yol verir və onun arqumentlərindəki məntiqi ardıcıllıq pozulur. Düzdür, o düşünür, amma bu, hələ əməliyyat düşüncəsi deyil.

**4.3. Konkret [7] - əməliyyat mərhələsi –** Bu mərhələ uşaqlarda məntiqi düşüncə tərzinin bəzi əlamətləri müşahidə edilir. Məntiqi düşüncə tərzinin yaranması səbəblərindən biri də odur ki, indi uşaq obyektləri iyerarxik təsnifatda birləşdirməyi və onların hər hansı bir sinfə aid olmasını anlayır. Bu, hissələrin tama, tamın hissələrə və tamın hissələrinin bir-birinə olan əlaqəsini anlamağa imkan yaradır. Məsələn, uşağa qarışıq şəkildə göy və qırmızı kvadratlar və qara ağ dairələr verək. Əgər o iyerarxik təsnifatı bilirsə, onda ona verilənlər arasında 2 əsas sinfin (kvadrat və dairə) və onların da hər birinin iki əlavə sinfinin (kvadratlar göy və qır-mızı, dairələr isə qara və ağ) olduğunu anlayacaq. Beləliklə, fiqurlar arasında əsas sinfi formaya, ondan törəmə sinfi isə rəngə görə qruplaşdırılan iyerarxiya yaranacaq. Bu da uşağa bir neçə məntiqi nəticəyə gəlməyə imkan verəcək: məsələn, hər hansı bir kvadrat ya göy, ya da qırmızı ola bilər, göy kvadratların miqdarı bütün kvadratların miqdarından azdır, əgər qırmızı kvadratları götürsək,onda yalnız göy kvadratlar qalacaq və s. Yoldan keçən bir uşaq eyni zamanda həm oğlan, həm şagird, həm idmançı, həm də sarışın ola bilər. Bu mərhələdə simmetriya və ya ekvivalentliklə tanışlıq baş verir.Rəqəmlərlə işləyərək uşaq anlayır ki, müxtəlif kombinasiyalar eyni bir nəticəni verə bilər və bu nəticəni dəyişməyərək proses zamanı müəyyən əvəzetmələr aparıla bilər.

Piaje koqnitiv inkişafın bu mərhələsini *konkret əməliyyat mərhələsi* adlandırıb, çünki bu cür düşünmə tərzi konkret elementlərdən (obyekt və ya ölçüdən), əməliyyatlardan (toplama və ya çıxmadan), qaydalardan və ya əməliyyatların yerinə yetirilmə üsullarını təsvir edən xüsusiyyətlərdən ibarətdir. Elkind bu mərhələnin əsas koqnitiv vəzifəsi kimi sinifləndirmə, qarşılıqlı əlaqə və kəmiyyət anlayışlarının öyrənilməsini qeyd edir. (*Elkind, 1967*).

Uşaq tərəfindən görülən bütün əməliyyatları dörd qrupa bölmək olar:

1. *Kombinator əməliyyatlar*. İki və daha artıq sinif özlərindən böyük bir sinifdə birləşir. Məsələn, qızlar və oğlanlar sinfinin birləşməsindən bütün yeniyetmələr sinfi yaranır.

2. *Çevrilən əməliyyatlar*. Bu qrupdan olan hər əməliyyata əks əməliyyat mövcuddur ki, o da birincinin hərəkətlərinə çevrilir. Əsas sinfi alt siniflərə bölmək olar: bu halda alt siniflərin birləşməsi əsas sinfə çevriləcək ki, bu da birinci hərəkətə dönüş deməkdir. Bütün yeniyetmələr oğlanlara və qızlara bölünür.

*3. Assosiativ əməliyyat.* Assosiativ əməliyyatlara (hərəkətlərə) malik uşaq öz məqsədinə bir neçə yolla nail ola bilər. Məsələn: (3+6)+4=13 və 6+(3+4)=13.

*4. Eyniqiymətli və sıfırla nəticələnən əməliyyatlar.* Əməliyyat ona əks olan əməliyyata uyğunlaşdırıldıqda sıfıra çevrilir. Məsələn: 0+3-3=0. (*Muuss,* 1988, p. 185)

*Saxlanma qanununa əsasən, əşyaların xüsusiyyətləri, yəni çəkisi, həcmi onların formaları və onları saxlayan qabların formaları dəyişildikdə dəyişmir.*

Saxlanma qanununun vəzifəsi əşyanın kütləsi və həcmini dəyişmədən onun formasının manipulyasiyasına əsaslanır. (*J. Piaje and İnhelder,* 1969).

**4.4. Formal əməliyyat dövrü [8]**

Koqnitiv inkişafın son dövrü və ya formal əməliyyat dövrü erkən yeniyetməlik yaşında başlanır. Fransız psixoloqu Jan Piaje bu dövrü aşağıdakı mərhələlərə bölür:

- III-A – formal əməliyyatların tamamilə mənimsənilməsi (11-12 yaşdan 14-15 yaşadək)
- III-B – formal əməliyyatların tamamilə qavranılması (14-15 yaşdan yuxarı)

14-15 yaşlarında olan altmərhələlər arasındakı sərhəd təfəkkürdə nataraz yenidənqurma proseslərinin baş verdiyini göstərir. Bu proses böyük yeniyetməlik dövründə tarazlığın və intellektual təşkilatçılığın yüksək səviyyəyə çatmasına səbəb olur.

Erkən yeniyetməlik dövrünə təsadüf edilən ilkin altmərhələ III-A hazırlıq mərhələsidir. Bu vaxt yeniyetmələr bir çox gerçəkləri özləri üçün kəşf edir və müəyyən formal əməliyyatları yerinə yetirə bilir, ciddi və sistemli şəkildə öz düşündüklərini sübuta yetirə bilmirlər. Bu altmərhələ yetişən formal

[7] Филип Райс «Психология подросткового юношеского возраста» (səh 169-170)
[8] Филип Райс, “Психология подросткового и юношеского возраста” (səh 172-175)

əməliyyat təfəkkürü adlandırılır. Yeniyetmələr bu dövrdə bütün şərtlərdə olmasa da artıq formal əməliyyatları yerinə yetirə bilirlər.

III-B mərhələsinə çatdıqda onlar daha mükəmməl ümumiləşdirmələr və daha ümumi qanunlar formalaşdırmaq bacarığı əldə edirlər. Ən başlıcası – sistemli mülahizələrin köməyi ilə öz düşündüklərini anidən olaraq isbat edə bilirlər. Bu onların təfəkkür metodunun vacibliyini anlamalarından irəli gəlir. Bu altmərhələ - formal əməliyyat təfəkkürünün həqiqi və ya möhkəmləndirilmiş mərhələsidir ki, onu yeniyetmə yaxud gənc ən müxtəlif şərtlərdə nümayiş etdirir. Əksər insanlar əsasən təkrar situasiyalarda for-mal düşünərək hardasa III-A altmərhələsində dayanırlar və III-B altmərhələsinə heç çatmır. Formal əməliyyatların mənimsənilməsi dərhal və daimi baş vermir. 11-12 yaşından 14-15 yaşadək təfəkkür prosesində əhəmiyyətli dəyişiklik, sistemləşmə və formalaşma müşahidə olunur. Bu illər ərzində fərdin öhdəsindən gələ biləcəyi məsələlər xeyli çətinləşir və III-B altmərhələsinə çatdıqda yenidən tarazlıq bərpa olunur (Miiss, 1988).

Öz məhdud intellektinə və zəif mədəni inkişafına görə bəzi yeniyetmə və gənclər heç də formal əməliyyat mərhələsinə çatmır. Elkind (1967) son mərhələni "fikrin fəthi" adlandırır. Bu zaman yeniyetmənin təfəkkürü uşağın təfəkküründən köklü surətdə fərqlənməyə başlayır (Praget, 1972). Uşaq konkret əməliyyatlar mərhələsini mənimsəyir və mənimsədiklərinin köməyi ilə hadisələrarası qarşılıqlı əlaqə qura bilir, siniflər və saylarla (rəqəmlərlə) müxtəlif əməliyyatlar apara bilirlər. Lakin bu əməliyyatların mürəkkəbliyi, məntiqi "qruplaşma" və yaxud toplama və vurmanın elementar səviyyəsindən yuxarı olmur. Uşaqlardan fərqli olaraq yeniyetmələr baş verənlərə və münasibətlərə məntiqlə yanaşırlar.

Başqa sözlə, formal əməliyyatlar mərhələsində yeniyetmə, induktiv mülahizələrin köməkliyi ilə öz fikirlərini sistemləşdirə, tənqidi analiz edə və müəyyən baxış formalaşdıra bilir. Bundan başqa onlar öz düşündüklərini məntiqi və elmi metodların köməkliyi ilə yoxlaya bilir, eyni zamanda bir çox dəyişənləri müəyyən edərək bütün həqiqəti elmi cəhətdən, deduktiv mülahizələr yolu ilə özü üçün kəşf edir (İnhelder və, 1958)

Aşağıdakı göstərilən nümunə, problemə uşağın baxışı ilə yeniyetmənin məntiqi, sistemli yanaşması*nın* fərqini nümayiş etdirir.



E.Pil uşaqlar arasında sorğu keçirərək belə bir hadisə haqqında nə düşündüklərini soruşmuşdur: "Yalnız qorxmaz təyyarəçilərə hündür dağların üzərində uçmağa icazə verilir. Bir qırıcının pilotu Alp dağları üzərində uçarkən kanat yolla toqquşaraq əsas trosu qırmışdır. Trosun qırılma səbəbindən bir neçə kabina buzlaqlara düşmüş və adamlardan bir neçəsi həlak olmuşdur". Konkret əməliyyat təfəkküründə malik uşaq cavab verdi: "Mən düşünürəm ki, bu təyyarəçi təyyarəni yaxşı idarə etməyib". Təfəkkürü formal əməliyyat səviyyəsində olan uşaq isə başqa bir fikir söyləyir: "Ola bilsin ki, o qarşısına çıxacaq maneədən – kanat yoldan xəbərsiz idi və ya çox alçaqdan uçurdu. Konkret əməliyyat təfəkkürlü uşaq düşünür ki, əgər toqquşma baş veribsə, demək pilot peşəkar olmayıb; formal əməliyyat təfəkkürü olan uşaq isə qəzanı törədə biləcək bütün mümkün səbəbləri nəzərdən keçirir. Konkret əməliyyat təfəkkürlü uşaq özü üçün daha çox ehtimal olunan hipotezi irəli sürür. Formal əməliyyat təfəkkürü olan uşaq isə bütün alternativləri araşdırır və onları ardıcıllıqla nəzərdən keçirir, yoxlayır. (Kohlberg və Gilligan, 1971, səh 1061, 1062)

Yeniyetmələrin məsələləri həll etmədə təfəkkür strategiyasını öyrənən Piaje müxtəlif eksperimentlər də aparmışdır. O, tədqiq (sınaq) olunan yeniyetmələr qrupuna sapdan asılmış kəfkir göstərmişdir. Sınaq iştirakçıları verilən tapşırığa görə təxmini kəfkirin tərpənmə sürətinə aşağıdakı 4 faktorlardan hansının təsir etdiyini araşdırmalı idilər:

- Asqının uzunluğunun dəyişməsi;
- yükün kütləsinin dəyişdirilməsi;
- kəfkirin rəqsi hərəkətə başladığı andakı hündürlüyün dəyişdirilməsi;

- kəfkirin rəqsi hərəkətə başladığı anda ona tətbiq olunan qüvvənin dəyişdirilməsi. Problemi müxtəlif üsullarla həll etmək mümkün idi. Bu məsələnin həllində yeniyetmələrin davranışında 3 xarakterik xüsusiyyət qeydə alındı. Birincisi – onlar öz tədqiqatlarının sistematik planını tərtib etdilər və kəfkirin tərpənmə sürətininin dəyişməsinə təsir edən bütün mümkün səbəbləri ardıcıl olaraq yoxlamağa başladılar: ip uzun və ya qısadır, yük ağır və ya yüngüldür, düşmə hündürlüyü kiçik və ya böyükdür və təkan gücü. İkincisi – onlar aparılan təcrübədə şərtlər dəyişdikcə alınan nəticələrin dəqiq və obyektiv qeydiyyatını aparırdılar. Üçüncüsü - əldə olunanların əsasında onlar məntiqi nəticələr çıxarmağı bacarırdılar. Məsələn, onlar görürdülər ki, düşmə hündürlüyü və təkan gücü kəfkirin tərpənmə sürətinə təsir etmir. Asqının uzunluğunun və ya çəkinin təsir edəcəyini güman edərək, xarakteristikaları (parametrləri) dəyişirdilər və müəyyən etdilər ki, tərpənmənin sürəti yükün çəkisindən asılı deyil. Lakin aydın oldu ki, tərpənmə sürəti ipin uzunluğu dəyişildikcə dəyişir. Beləliklə, yeniyetmələr bu nəticəyə gəldilər ki, tərpənmə sürəti ancaq asma ipin uzunluğu ilə müəyyən edilir. Bu birinci tədqiqatdan sonra onda tətbiq olunmuş metodlar dəfələrlə başqa alimlər tərəfindən tətbiq olunmuş və analoji nəticələr əldə olunmuşdur.

Faktlar əsasında mülahizə yürütmək uşaq təfəkkürü üçün xarakterikdir. Bəzən bu fikirlər tələskən və yanlış olur, çünki uşaq bütün faktları nəzərdən keçirmir və onlar haqqında məntiqi fikir söyləyə bilmir. Hətta öz ilkin mülahizələrinin əsassız olduğunu gördükdə belə inadkarlıqla onun üzərində dayanır və şəraiti bu fikrə uygunlaşdırmaq cəhdi edir. Yuxarıda qeyd olunanları ümumiləşdirərək demək olar ki, yeniyetməlik dövründə təfəkkürün bir-birilə bağlı 3 xüsusiyyətləri meydana çıxır:

1) 2 və ya daha çox dəyişənlər arasında əlaqəni üzə çıxarmaq və ya mürəkkəb münasibətlərdən baş çıxarmaq bacarığı;

2) Bir və ya bir neçə dəyişənin digər dəyişənə mümkün təsiri ilə bağlı məntiqi fərziyyələr qurmaq bacarığı;

3) Daha çox ehtimal olunan halın hələ təcrübədən keçirilmədən ortaya çıxmasına xidmət edən hipotetik deduksiya (ümumi olandan konkret, xüsusi nəticənin çıxarılması) prosesində dəyişənləri birləşdirmək və ya ayıra bilmək bacarığı. Belə ki, yeniyetmələrdə təfəkkürün əsas meyarı real olanla mümkün olan arasındakı qarşılıqlı əlaqə qurmaqdır. (Gallagher və Noppe, səh 202)

Uşaqların konkret əməliyyat təfəkkürü ilə yeniyetmələrin formal-əməliyyat təfəkkürü arasında olan əsas fərq ondadır ki, sonuncular birbaşa təəssüratlara deyil, abstraksiyaya istiqamətlənirlər. Onlar konkret reallıqdan imtina edib, abstrakt və mümkün olan barədə düşünürlər. Bu isə onlara özlərini gələcəyə hazırlamaq, mövcud olanı mümkün olandan ayırmaq və nə ola biləcək barədə düşünmək imkanını verir. (Bart, 1983).

**Nəticə** "Yeniyetməlik dövrü elə bir mərhələdir ki, bu mərhələdə yeniyetmə özünü bütövlüklə imkanlara (alternativlərin axtarılmasına) həsr edir. Sözün əsl mənasında "sistemlər" və "nəzəriyyələr" qurur" (Baker, 1982) Bu, özünü gələcəyə hazırlaya bilmək bacarığı yeniyetmənin həyatında mühüm nəticələrə gətirib çıxarır. Piajenin formal təfəkkür konsepsiyasının nəticəsi olaraq onun 4 mühüm aspektini göstərək: introspektiv təfəkkür (fikirlər haqqında fikirlər); abstrakt təfəkkür (real olanlardan mümkün olana doğru sərhədləri aşmaq); məntiqi təfəkkür (bütün əhəmiyyətli faktların və fikirlərin nəzərə alınması, onlardan düzgün nəticələrin çıxarılması, məs: səbəb-məqsəd nəticələrinin tərtib edilməsi); və qipotetik təfəkkür (müxtəlif dəyişənləri nəzərə alaraq onların sübut və fərziyyələrinin formalaşması).

**Ədəbiyyat siyahısı**

1. Ramiz Əliyev « Psixologiya » (səh.78)
2. http://www.donusumkonagı.net
3. Jean Piaje «The child`s conception of the world» (səh. 169-170)
4. Ə.Ə. Qədirov, İ.N.Məmmədov «Yaş Psixologiyası» (səh. 129)
5. Филип Райс « Психология подросткового и юношеского возраста » (səh 167-168)
6. Филип Райс « Психология подросткового и юношеского возраста» (səh 168)
7. Филип Райс « Психология подросткового и юношеского возраста» (səh 169-170)`
8. Филип Райс « Психология подросткового и юношеского возраста » (səh 172-175)

# TƏSVİRİ SƏNƏT FƏNNİNİN TƏDRİSİNDƏ İNKLÜZİV ŞAGİRDLƏRİN OBRAZ VƏ SÜJET ÜZƏRİNDƏ TƏHLİL BACARIQLARININ İNKİŞAFI

**Emil Raul oğlu Ağayev**
ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecinin
"İncəsənət və fiziki tərbiyə" fənn birləşmə komissiyasının müəllimi
Emilaghayev93@mail.ru
BAKI, AZƏRBAYCAN

**XÜLASƏ**

Müasir təhsilin inkişafı və diqqət mərkəzində inklüziv şagirdlər əsas yer tutur. Orta məktəblərdə inklüziv şagirdlərin yaradıcılıq qabiliyyətlərinin inkişafında təsviri incəsənət fənnini xüsusilə vurğulamaq lazımdır. Bu fənnin tədrisi zamanı müəllim obraz və süjet üzərində təhlil bacarıqlarına da diqqət yetirməlidir. Bu məqalədə təsviri incəsənət fənni üzrə bir neçə mövzunun inklüziv şagirdlər üçün obraz və süjet təhliletmə qabiliyyətlərinin inkişafı üzrə tədris metodikası təhlil edilmişdir.

**Açar sözlər:**Təsviri incəsənət, inklüziv, şagird, orta məktəb, müəllim

**Abstract.** Inclusive students occupy a central place in the development and focus of modern education. Special emphasis should be placed on the subject of fine arts in the development of creative abilities of inclusive students in high schools. During the teaching of this subject, the teacher should also pay attention to the skills of analyzing the image and plot. In this article, the teaching methodology for the development of image and plot analysis abilities for inclusive students of several topics in the subject of fine arts has been analyzed.

**Key words:** Fine arts, inclusive, student, high school, teacher

## GIRIŞ

Hər bir ölkə təhsilin inkişafına uzun bir zaman ayırır. Maliyyə xərclərinin ayrılması, yeni mexanizmlərin öyrənilməsi, xarici təcrübələrin yerli təhsilə inteqrasiyası həmişə uğurlara səbəb olur. Təhsil hər şəxs üçün əlçatan olduğu üçün, xüsusilə inklüziv şagirdlərin inkişafı prioritet hesab edilməlidir. Orta məktəblərdə hər bir müəllim inklüziv şagirdləri diqqət mərkəzində saxlamalıdır. Əlbəttə ki, inklüziv şagirdlərin inkişafı üçün təsviri sənət fənnini əhəmiyyətli dərəcədə vurğulamalıyıq.

## TƏDQIQAT METODU

Təsviri sənət fənninin inklüziv şagirdlərə tədrisi zamanı müəllim obraz və süjet üzərində təhlil bacarıqlarına diqqət etməlidir. Ümumiyyətlə təsviri sənət fənninin tədrisi zamanı müəllim inklüziv şagirdlərdə bu bacarıqları ön plana çıxarmalıdır:

-İnklüziv şagirdlər təsviri sənət əsərləri üzərində təhliletmə bacarıqlarını nümayiş etdirməlidir;

-Təsviri sənət müəllimi inklüziv şagirdlərlə rəngləmə, applikasiya və yapma işlərinə diqqət yetirməli;

-İnklüziv şagirdlərdə estetik zövq formalaşmalıdır.

Təsviri sənət müəllimi V sinif inklüziv şagirdlərinə Abbas Hüseyninin "Azərbaycan ailəsi" əsərini təhlil edərkən aşağıdakı obraz və süjet üzərində fikirləri ön plana çıxarmalıdır:

-Əsərdə janr barəsində fikirlər söyləmək;

-Əsərdə rəng həlli barəsində qeydlər edib və ya söyləmək;

-Əsərin əsas ideyası haqqında fikir mübadiləsi aparmaq.



**İLL 1. Abbas Hüseyni "Azərbaycan ailəsi"**

V sinif inklüziv şagirdlərinə xalq məişət əşyaları mövzusunu keçən zaman aşağıdakı fikirlər ön plana çıxarılmalıdır:

-Dolça, sərpuş, kuzə və səhəngin formasını təhlil etmək;

-Xalq məişət əşyalarının həyatımızda rolunu müəyyənləşdirmək;

-Xalq məişət əşyaları üzərində ornamentlərin rolunu vurğulamaq



**İLL 2. Xalq məişət əşyaları**

Təsviri sənət müəllimi VI sinif inklüziv şagirdlərə təsviri sənət fənnini tədris edən zaman "Rəssam yaradıcılığında insan obrazı" mövzusunu keçərkən aşağıdakı fikirləri diqqətində saxlamalıdır:

-Portret janrının fərdi xüsusiyyətlərini danışmalıdır;

-Təntənəli və kameral portretin oxşar-fərqli cəhətlərini qruplaşdırmaq;

-Portretlərdə məkan, rəng və obraz həllini təhlii etmək

VI sinif inklüziv şagirdlərinə "Zərgərlik sənəti" mövzusunu keçərkən isə zərgərlikdə naxışvurmanın texniki emal üsulları haqqında aşağıdakı təsviri sənət fənninin tədris bacarıqları ön plana çıxarılmalıdır:

-Zərgərlik sənətinin inkişaf tarixini təhlil etmək;

-Qədim Misir və Yunan zərgərlik sənətinin müqayisəli təhlili;

-Zərgərlikdə naxışvurmanın texniki emal üsullarını qruplaşdıraraq, təhlil etmək.




**İLL 3. Zərgərlikdə naxışvurmanın texniki emal üsulları**

Təsviri sənət müəllimi VII sinif inklüziv şagirdlərə "Təsviri sənətdə əfsanəvi obrazlar" mövzusunu keçərkən aşağıdakı fikirləri diqqət mərkəzində saxlamalıdır:

-Rasim Babayev əsərlərində əfsanəvi obrazı təhlil etmək;

-Əsatir janrı haqqında məlumat vermək;

-Kompozisiyada rəng, obraz və süjet həllinin müqayisəli təhlilini inkişaf etdirmək.





**İLL 4.Rasim Babayev "Div kasa ilə" İLL 5. Rasim Babayev "Qaçqınlar evlərində**

"İnteryerin dizaynı" mövzusunu VII sinif inklüziv şagirdlərinə keçən zaman təsviri sənət müəllimi aşağıdakı fikirlərə xüsusilə diqqət yetirməlidir:

-Memarlıqda interyer anlayışı haqqında fikirləri söyləmək;

-Müxtəlif üslublarda interyerlərin təhlili;

-Müxtəlif üslublarda interyerlərin oxşar-fərqli cəhətlərini qruplaşdırmaq.

Təsviri sənət müəllimi VIII sinif inklüziv şagirdlərinə "Oskar Klod Mone:işıq və rəng vurğunluğu" mövzusunu keçərkən aşağıdakı fikirləri diqqət mərkəzində saxlamalıdır:

-İmpressionistlərin əsərlərində əsas ideyanı ön plana çıxarmaq;

-Klod Monenin "Laləli çəmənlik" əsərinin detallarla təhlili;

-Klod Monenin yaradıcılıq və əsərlərinin müqayisəli təhlilini qruplaşdırmaq.




**İLL 6. Klod Mone "Laləli çəmənlik"**

VIII sinif inklüziv şagirdlərə “Toğrul Nərimanbəyov:monumental rəngkarlıq” mövzusunu keçən zaman aşağıdakı qeydlər xüsusilə vurğulanmalıdır:

-Toğrul Nərimanmbəyov yaradıcılığının janrlar üzrə qruplaşdırılması;

-Toğrul Nərimanbəyov əsərlərini təhlil etmək;

-Bakı və nağılvari əsərlər üzərində təhlil bacarıqlarını inkişaf etdirmək.

IX sinif inklüziv şagirdlərində isə obraz və süjet üzərində təhlil bacarıqları yüksək səviyyədə inkişaf edərək ən yüksək mərhələyə çatmalıdır. Bu zaman təsviri sənət müəllimi inklüziv şagirddən məntiqli yanaşmaya yaxın olan fikirlər üzərində çalışmalıdır. “Arif Hüseynov:Azərbaycan nağılı” mövzusunu keçərkən aşağıdakı fikirləri diqqət mərkəzində saxlamalıdır:

-Arif Hüseynov yaradıcılığının fərdi xüsusiyyətlərini qruplaşdırmaq;

-Əsərlərdə milli ənənə və mövzuların təhlili;

-Arif Hüseynovun “Novruz” silsiləsində obraz və süjeti təhlil etmək.



**İLL 7. Arif Hüseynov “Novruz” silsiləsi “Kəndirbazlar”**

**NƏTICƏ**

Təsviri sənət müəllimi inklüziv şagirdlərə obraz və süjet üzərində təhlil bacarıqlarını inkişaf etdirərkən məntiqli, aydın fikirlər üzərində çalışmalıdır. Müəllim-şagird münasibətlərinin inkişafı bu bacarıqlar zamanı ön plana çıxarılmalıdır.

**ƏDƏBIYYAT SIYAHISI**

1.V sinif təsviri incəsənət dərslik. Bakı 2020. 80 s
2.VI sinif təsviri incəsənət dərslik.Bakı 2020. 96 s
3.VII sinif təsviri incəsənət dərslik. Bakı 2022.96 s
4.VIII sinif təsviri incəsənət dərslik.Bakı 2022.96 s
5.IX sinif təsviri incəsənət dərslik.Bakı 2020. 97 s

# SATİRİK POEZİYADA TƏHSİL MÖVZUSU VƏ MİLLİ OYANIŞ.

**Məhərrəmova Nəzrin**
Azərbaycan Dillər Universiteti
Filologiya /Azərbaycan ədəbiyyatı
magerramova_nazrin@mail.ru
Bakı, Azərbaycan

**Abstract:** The 20th century is a period of awakening of national self-awareness of Azerbaijani people .The article deals with the phenomenon of national self-awareness and the role of education in the formation of the national identity of Azerbaijani people. The role of educational factor is considered to be the one of the main components for the formation of national self-awareness and the national identity. Author explains the role of education in the growth of national awakening of Azerbaijani people. The author of the paper investigates the relationship between national identity and education, the influence of educational factor on national identity and explains the role of satirical poetry in formation of the national self-awareness of Azerbaijani nation .This problem is explained in the samples of satirical poetry in the beginning of the 20th century.

**Key words:** national self-awareness, national identity, national consciousness, educational factor, satirical poetry.

**Xülasə:** XX əsrin əvvəlləri Azərbaycan xalqının milli kimlik şüurunun və milli özünüdərkinin oyanması dövrü hesab edilir. Məqalə təhsil faktorunun Azərbaycan xalqının milli identikliyinin və milli özünüdərkinin formalaşmasındakı rolundan bəhs edir.Təhsil faktoru Azərbaycan xalqının milli identikliyinin formalaşmasında mühüm faktorlardan biri hesab olunur. Müəllif Azərbaycan xalqının milli oyanışında təhsilin müstəsna rolundan bəhs edir, təhsil faktoru və milli kimlik şüuru arasındakı əlaqəni araşdırıb, təhsilin milli identikliyə olan təsirini tədqiq edir. XX əsrin əvvəllərinin satirik poeziya nümunələri milli özünüdərk və milli kimlik şüurunun formalaşmasında mühüm rol oynamışdır. Məqalədə təhsil faktorunun milli identikliyin formalaşmasındakı rolu məhz XX əsrin əvvəllərinin satirik poeziya nümunələrinin üzərində izah olunur.

**Açar sözlər:** milli özünüdərk, milli kimlik, milli şüur, təhsil faktoru,satirik poeziya.

**Giriş.** Hər bir millət üçün zəngin tarixə malik özünəməxsus ənənə və dəyərlərinin yaşadılması , gələcək nəsillərə ötürülməsi mühüm əhəmiyyət kəsb edən məsələlərdən biridir.Milli özünüdərk ilk növbədə insanın öz tarixi kökünü, milli mənsubiyyətini, vətən tarixini bilmək və bunu dərk etməyi özündə ehtiva edir. Hər bir vətəndaş hansı milləti təmsil etdiyini,hansı milli xüsusiyyyətləri daşıdığını və bu xüsusiyyətlərin hansı əsaslara söykəndiyini bilib dərk etməlidir. Bədii fikir və bədii söz sənəti də öz tərbiyəvi funksiyasından istifadə edərək müxtəlif dövrlərdə, müxtəlif üsullarla bu problemə toxunmuş, onun özünəməxsus şəkildə həllinə çalışmışdır. Azərbaycan bədii fikir tarixində milli özünüdərk, milli kimlik mövzusu XX əsrin əvvəllərində, xüsusilə Azərbaycan satirik ədəbiyyatında daha da güclənmiş,yeni təkanla üzə çıxmışdır. C.Məmmədquluzadə başda olmaqla "Molla Nəsrəddin" ədəbi məktəbinin görkəmli nümayəndələrinin -M.Ə.Sabirin, Ə.Nəzminin, Ə.Qəmküsarın, M.Möcüzün, Ə.Müznibin, S.Mənsurun və b. ədəbi-bədii yaradıcılıqları Azərbaycan ədəbiyyatında vətənçilik, millilik, milli yaddaş və milli kimlik ideyalarının inikasıdır.

**Tədqiqat metodu.** XX əsrin əvvəllərində baş verən ictimai-siyasi hadisələr, müxtəlif qrup və qüvvələrin ziddiyyətli fəaliyyəti milli özünüdərk prosesinin yeni sıçrayışla Azərbaycan bədii fikrində təşəkkül tapmasına səbəb olmuşdur. Milli kimlik mövzusunun ortaya çıxarılması üçün xüsusi tarixi-sosial və mədəni kontekst tələb olunurdu ki, məhz XX əsrin əvvəllərini əhatə edən dövr milli identiklik və milli mental dəyərlərin ədəbi bədii nümünələrdə göstərilməsi üçün əlverişli bir dönəm idi. Əsrin əvvəllərində Azərbaycan ictimai-fəlsəfi, ədəbi fikrində milli kimlik, milli oyanış və milli özünüdərk məsələlərinin aktuallığı maarifçi və ədiblərdən milli şüurun oyanışı, xalqın maariflənərək mövhümat və cəhalətdən xilas olması məsələlərinin ön plana çəkilməsini tələb edirdi. Çünki milli şüurun dirçəlməsində, insanın milli kimliyinin dərkində, xalqın cəhalət yuxusundan oyanaraq özünütanımasında elm və təhsil faktorunun rolu danılmaz idi. Bu baxımdan XX əsrin satirik poeziya nümunələrinin əksəriyyətinin qayəsində köhnənin,sxolastik təlim üsullarının,vaxtı keçmiş,milləti

yalnız geriyə apara biləcək adətlərin tənqidi, qabaqcıl ideyaların, maarifin, yeniliyin, elm və mədəniyyətin təbliği və inkişafı durur, milləti özünüdərkə aparmağın bir yolu da məhz elm və təhsildən keçirdi.

M.Ə.Sabirin "Vah-vah! Nə yaman müşkülə düşdü işim,allah!" satirasında mollanın diliylə elmin və maarifin xalqı ayıldaraq milli şüurun oyanması hadisəsi mənfi hal kimi təqdim edilir.Sabir satirik janrın tələblərinə uyğun olaraq müsbət xüsusiyyətləri mənfi obrazların diliylə mənfi hal kimi göstərərək, elmə,maarifə yiyələnməklə xalqın oyanışına pis münasibət bəsləyən din xadimlərini gülünc vəziyyətdə göstərmişdir:

"Məktəblər açıb, eyləyin ehsanı, –deyirlər.
Məktəbdə qoyun ustulu, daskanı,-deyirlər.
Pərpuç eləyin çubü fələqqanı,- deyirlər,
Dişrə çıxarın həzrəti-mollanı,-deyirlər,
Molla qovula, yəni müəllim gələ, vah.....vah!
Lahövlə vəla qüvvətə illah və billah!...." (Sabir ,2012).

M.Ə.Sabirin bu mövzuda qələmə aldığı "Oxutmuram əl çəkin", "Elm təhsili", "Üsuli-cədid" və b. satirik nümunələrində də mənfi tipin dilindən elmə,maarifə yiyələnmə mənfi xarakterik xüsusiyyət kimi göstərilməklə, əksinə elmin, təhsilin əhəmiyyəti, milli oyanış və milli özünüdərkin inkişafında maarifin vacibliyi, müstəsna rolu vurğulanır. Şairin "Təhsili ülum etmə", "Bilməm nə görübdür bizim oğlan oxumaqda", "Bəsdir , ey oğul". "Ay nənə,bir qırmızısaqqal kişi", "Zahid ölməkdən qabaq", "Demilir, elm oxuyun sözləri, hər anda bizə", " Aç dilini, yum gözünü zahida" , "Bir böyük boşboğazıq, heyvərəlik adətimiz" və b. satirik şerləri isə birbaşa ətalətə, nadanlığa qarşı yönəlmiş, elmə maarifə yiyələnməklə xalqı milli oyanışa, milli tərəqqiyə səsləyən bir çağırış idi:

"Bir böyük boşboğazıq, heyvərəlik adətimiz,
Doludur lənət ilə, qeybət ilə söhbətimiz.
Oxumaqdan payımız yox, yazıdan qismətimiz,
Bu əvamlıqla belə hər sözü təfsir edərik,

Mümkün olduqca müsəlmanları təkfir edəriz".. ( Zamanov,1973) Bu şer parçasında Sabir mənfi tipin öz dilindən milli məziyyət və keyfiyyətlərimizi sadalayaraq, elmə -maarifə,inkişafa olan düşmən münasibətimizi göstərməklə tənqid etmiş, xalqını, millətini bütün bu eyb və nöqsanlardan arınıb milli oyanış və inkişafa səsləyirdi.

Xalq kütlələrinin milli şüurunun oyanışına, milli özünütanıma və özünüdərkinə, milli tərəqqiyə əsas maneə olan cəhalət, nadanlıq problemi M.Ə.Sabirin "Tərpənmə, amandır, bala, qəflətdən ayılma!" misralı satirik şerində mənfi tipin öz dilindən özünütənqid formasında verilmişdir:

"Tərpənmə, amandır, bala, qəflətdən ayılma!
Açma gözünü xabi-cəhalətdən ayılma!
Aldanma, ayıqlıqda fəraqət ola, heyhat!
Qəflətdə keçənlər kimi ləzzət ola, heyhat!
Bidar olanın başı səlamət ola, heyhat!
At başını yat, bəstəri-rahətdən ayılma!
Laylay, bala, laylay!
Yat, qal dala, laylay!" ( Sabir,2012).

Bu nümunədə mətləbin daha dəqiq və kəskin şəkildə oxucuya çatdırılması, məna və məzmunun qüvvətləndirilməsi məqsədilə şair hər bəndin sonunda "laylay, bala, laylay! Yat, qal dala, laylay" misralarını əlavə etmiş, tənqid xarakterli məsləhətlərinin əksinə xalqı cəhalət, qəflət yuxusundan ayıldaraq milli oyanış və özünüdərkə səsləyirdi.

Sabir satiralarının qayəsində xalqın milli oyanış və milli özünütanıma meyllərinin olması, xalqın təfəkküründə olan idealları lağa qoymaqla xalqı cəhalətdən xilas edib milli özüdüdərkə səsləməsi aşkardır. Ədəbiyyatşünas Timurçin Əfəndiyev Sabir satirasının bu xüsusiyyətini yüksək qiymətləndirərək , onun şeirlərini sırf milli oyanma, özünütanıma istiqamətində təhlil edilməsinin vacibliyini ortaya qoyur: "Sabir satiralarında yeni dərketmə var, ayrı-ayrı fərdləri deyil, xalqı düşünür, xalqı tənqid edir, onun satirasının milli idealı xalq idi, əsas problemi isə xalqın milli özünüdərk problemi idi" ( Əfəndiyev , 2021 ).

M.S.Ordubadinin "Bizim qız" satirik şerində də şair tənqid hədəfi qismində mühəfizəkar,köhnəpərəst ata obrazının qızının məktəbə, elmə həvəs etməsinə düşmən münasibətini

göstərmiş, Sabirin "Bilməm nə görübdür bizim oğlan oxumqdan" misrası ilə başlanan satirasında olduğu kimi elm və təhsili gerilik və cəhalətə qarşı qoyaraq xalqı milli intibah və özünüdərkə səsləmişdir:

" Bilməm nə görüb məktəbi-irfanda bizim qız,
Təhsili-ədəb, dərsi dəbistanda bizim qız?
...Məktəbsiz ikən bir qız idi, çox da müəddəb,
Nadan bu qızın korlamış əxlaqını məktəb,
Baxmaz sözümə . dinsiz olub cəhlə-mürəkkəb"
Söylər ərə mən getmirəm, hər yanda bizim qız!" (Ordubadi ,1964).

Eyni motiv və mövzuya aid Əli Nəzminin "Məktəb", "Nə idi". "Çalışma elm üçün", "Pozdu işi bu qəzet yazanlar", "Molla arifə deyir", "Məktəb rəhnümayi-inqilabi kani-üsyandır" və s. satiralarında da rast gəlmək olar. Şairin "Tazələr" satirasında cahillə alim, şəriət ehkamları ilə dünyəvi elm müqayisə edilir, mütərəqqi ziyalıların elmi təbliğ etmələri alqışlanır, maarif düşmənləri isə satirik tənqid atəşinə tutulur:

İstəyirlərdi ki, iğva edərək bu ürəfa
Doğru yoldan azıdıb eyliyələr cövri-cəfa,
Leyk, səd şükr ki, zəhmətləri həp oldu həba
Sındı bilcümlə pərü balı bizim tazələrin,
Həmdülillah, dönüb iqbalı bizim tazələrin.( Əli N. 2006).
"Hər kimə nəql eləyirsən mədəniyyət sözünü,
Qabarıb üstünə, hiddətlə bərəldir gözünü"- deyən şair xalqın avamlığı və milli geriliyin səbəbini cahillikdə görərək, xalqı maarifə, elmə yiyələnməklə milli oyanışa səsləyir:
"Dilər ürfani-noməsləк,cahan bir laləzar olsun....
Uzaqlaşsın qəmi-möhnət,silinsin dideyi-qəflət,
Edilsin himməti qeyrət, tikilsin məktəbi-ibrət....
Ayılsın xabdan millət, oyansın, huşiyar olsun....." ( Əli N. 2006).

**Nəticə.** Beləliklə, bütün bu nümunələrdən belə nəticəyə gəlmək olar ki, elm və təhsil mövzusu XX əsrin əvvəlləri satirik şairlərin yaradıcılıqlarından qırmızı xətt kimi keçmiş, ədiblər elmə, maarifə yiyələnməyi gerilik və cahilliklə mübarizədə əsas silah hesab edərək,elm və təhsili xalqın milli şüurunun oyanmasıyla milli özünüdərk prosesinin gedişatında mühüm aparıcı qüvvə hesab etmişlər. Bu satirik poeziya nümunələrində elmin, maarifin, təhsilin xalqın milli oyanış və milli özünütanıma prosesində, inkişaf və tərəqqisində müstəsna rolu və əhəmiyyəti bütün təfərrüatları ilə göstərilmiş, elm və təhsil faktoru milli şüurun oyanması və milli özünüdərk prosesinə əsas yardıcı vasitə kimi təqdim edilmişdir. Məhz XX əsrin əvvəlləri Azərbaycan xalqının milli özünüdərk prosesi və milli şüurunun oyanmasının yalnız xalqın əsas fəlakəti kimi milli-mədəni geriliyimizin əsas səbəbi olan cəhalət və xürafat dünyasının mürtəce, köhnəlmiş adətlərindən xilas olmaqla mümkünlüyü vurğulanırdı.

**Ədəbiyyat siyahısı**

1. Əfəndiyev T. (2021). Milli özünüdərk ədəbi konteksdə. Bakı. Azərnəşr , 290-305.
2. Əli. N. (2006). Seçilmiş əsərləri. Bakı . Şərq-Qərb nəşriyyatı , 99-100.
3. Əli .N. (2006). Seçilmiş əsərləri. Bakı. Şərq-Qərb nəşriyyatı, 113-115.
4. Ordubadi M.S. (1964) . Əsərləri I cild. Bakı. Azərnəşr, 70 .
5. Sabir M.Ə. (2012). Hophopnamə. Bakı. Qanun nəşriyyatı ,74-75.
6. Sabir M.Ə. (2012). Hophopnamə. Bakı. Qanun nəşriyyatı, 32-33.
7. Zamanov A. (1973). Sabir və müasirləri. Azərbaycan Dövlət nəşriyyatı. Bakı, 206.

# TƏLƏBƏLƏRIN KOQNITIV GÖSTƏRICILƏRININ HƏYƏCAN SƏVIYYƏSINDƏN ASILILIĞI

**GÜLSÜM ƏFƏNDIYEVA**
Qərbi Kaspi Universiyeti
Psixologiya Fakultəsi
*gulsum.efendiyeva2005@gmail.com*
Bakı, Azərbaycan
Elmi rəhbər: **B.ü.f.d. Kərəmova N.Y.**

**XÜLASƏ**

Hər bir şəxs uğurlu gələcəyi üçün təlimlər alır və biliklərini təkmilləşdirmək üçün də imtahanlardan keçir. Hər bir hadisədə olduğu kimi imtahan prosesləri də stressə səbəb olan faktorlardan biri kimi çıxış edə bilər . İmtahan stessi haqqında bir çox tədqiqatlar və müxtəlif yanaşmalar mövcutdur ki, bu da imtahan stressinin mənfi və müsbət xüsusiyyətlərinin araşdırılması ilə nəticələnib. İmtahan stressi fərdlərin koqnitiv funksiyalarına, fizioloji göstəricilərinə, yaddaş proseslərinə, həyəcan göstəricilərinə, imtahanda əldə edilən nəticəyə, akademik uğur göstəricilərinə və s. təsir edir. Təqdim etdiyimiz məqalə Qərbi Kaspi Universitetinin " Science Group" gənc tədqiatçılarının iştirakı ilə aparılmış tədqiatların bir hissəsini təşkil edir. Tədqiqatımızın əsas məqsədi həyəcan göstəricilərinin koqnitiv göstəricilərə təsirini araşdırmaq olmuşdur. Tədqiqatımızda müxtəlif kurslarda oxuyan 17-21 yaşlı tələbələr iştirak etmişdir. Nəzərə alsaq ki, bu yaş dövründə tələbələr yetkinlik dövründə olduqları üçün həyəcan təsirlərinə qarşı reaksiyaları da inkişaf səviyyəsindən asılı olaraq dəyişəcək. Tədqiqatımızı aparmaqdakı əsas stimullardan biri zaman keçdikcə stress və həyəcan səviyyələrinin nə dərəcədə koqnitiv funksiyalara təsir etdiyini araşdırmaqdır. Optimal həyəcan səviyyəsində orqanizmamızda baş verən somatik dəyişikliklər bizim koqnitiv funksiyalarımızın (diqqət, yaddaş, yadasalma prosesi və s. ), məhsuldarlığımızın artmağına müsbət təsir edir lakin bir nöqtəyə qədər. Stress çox və xroniki şəkildə olduqda bu tərs reaksiyaya səbəb olar. Həyəcan səviyyəsi çox yüksək olduqda, optimal səviyyəni keçdikdə əks proses koqnitiv funksiyalarda da enişlə müşahidə olunur.

**AÇAR SÖZLƏR: imtahan stressi , optimal həyəcan səviyyəsi, fərdi həyəcan, situativ həyəcan, qısa müddətli yaddaş, diqqət.**

## GIRIŞ

Amerika Psixologiya Assosasiyası psixologiya lüğətlərində həyəcana həvəs, gözləmə, ümumi oyanma ilə qeyd olunan emosional vəziyyət kimi tərif verir. Həyəcan müəyyən əlamətlərə malik olan ruh halıdır. Həyəcanın fizioloji və nevroloji xüsusiyyətlərinə nəzər saldıqda işlər daha maraqlı olur. Fizioloji baxımdan qorxu və həyəcan bəzən bir-birindən fərqlənmir. Həyəcanın bəzi fizioloji göstəriciləri sürətli ürək döyüntüsü, gərgin əzələlər, göz bəbəyinin genişlənməsi və s. yüksək narahatlıq və qorxu hissi ilə demək olar ki, eynidir. Beyində də bu zaman maraqlı fəaliyyət göstərir. Həyəcanlandığımız zaman beynin digər hissələrinə nisbətən daha yüksək aktivləşmə göstərən bəzi sahələri var. Yəni beynin beş hissəsi var ki, biz həyəcanlandığımız zaman yüksək elektrik aktivliyi göstərirlər. Pre-Central Gyri, Post-Central Gyri, Precuneus, Inferior Frontal Gyrus, Middle Frontal Gyrus. (Turrell, Halpern & Javadi 2019).

Həyəcan vəziyyətdən asılı olaraq orqanizmin cavab reaksiyasıdır. Ədəbiyyatdan məlumdur ki, beyində fəaliyyətə başlamazdan əvvəl və hadisə baş verdikdən sonra aktivləşməni göstərən xüsusi bölgələr var. Həyəcan zamanı araşdırma üçün yalnız piramidal neyronlar nəzərdə tutulur. Piramidal neyronlar beynin ən xarici təbəqəsində, yəni beyin qabığında olan neyronlardır. Beynimizin daha dərin qatlarında yerləşən və həyəcan anında iştirak edən başqa sahələridə mövcutdur. Həyəcanlı oluğu zaman ürək döyünməsinin bir səbəbi də daxili sekresiya vəzilərinin qan dövranına hormonlar ifraz etməsidir. Həyəcan zamanı alınan ilk reaksiya sinir sisteminin adrenalin, noradrenalin, və kortizon kimi hormonların ifrazını qıcıqlandırması ilə başlayır. Bu stressə hazırlıq vəziyyəti kimi də qiymətləndirilə bilər (Kərəmova N.Y.,2010). Artıq orqanizm bu reaksiya ilə birlikdə ola biləcək hər

təhlükəyə hazır hala gəlir. Məsələn, göz bəbəklərinin genişləməsi, tüklərin dikləşməsi və s. . Tənəffüs sistemi bu hadisədən dərhal qıcıqlanır, daha dərin və tez nəfəs alma ilə reaksiya verir. Oksigen qazı ilə zəngin olan hava ağciyərlərdəki alveollar vasitəsi ilə qana keçir. Ürək döyüntülərinin sürəti və qan təzyiqi artır.Əgər həyəcan xroniki hala gələrsə bu vəziyyət qan damarlarına zərər verir. Bu da hipertoniya, ürək tutması, ya da iflic kimi xəstəliklərin riskini artırır. İfraz olunan adrenalin nəticəsində orqanizmdə əzələ gərginliyi müşahidə olunur. Daimi baş verən bu əzələ gərginlikləri fiziki ağrılara səbəb olur. Bu ağrılar çiyinlərdə, boyunda və ya başda meydana gəlirsə baş ağrılarına və miqrenə səbəb ola bilər. Həyəcan vəziyyəti endokrin sisteminə də təsir edir. Beyinin endokrin sistemi ilə ümumi sinir sistemimi əlaqələndirən əsas nahiyə hypotalamusdur. Hypotalamusdan gələn həyəcan implusları adrenalin və kortizon hormonlarının ifrazına təsir edir (Vivian, N.G., Koh, D., and Chia, S.E. 2003). Amigadala zaman-zaman beyinə təsir edərək həyəcanın yaranmasına səbəb olur. Bu təcrübədə yaddaşın irəliləməsinə təsiri göstərir. Orta dərəcəli həyəcan məqamlarında ifraz olunan bu kortikosteroindlər hipokampus bölgəsinə təsir edirlər. Bu formada həyəcan faydalı ola bilər. Lakin stress çox və xroniki şəkildə olduqda bu tərs reaksiyaya səbəb olar. Siçanlar üzərində aparılmış bir təçrübədə iynə ilə yeridilmiş kortikosteroid hormonu artdıqca bir nöqtəyə qədər yaddaşın genişlədiyi lakin bir müddət sonra stress hormonunun artması ilə əlaqədar yaddaşda ciddi eniş müşahidə olunub (M.Joels, H.Karst, R.A. Sarabdjitsingh, 2018).

Həyəcan və ya stesin orqanizm tərəfindən aradan qaldırılması və lazım olan enerjinin əmələ gəlməsi üçün qaraciyər tərəfindən qanda şəkər, yəni qlukoza mübadiləsi sürətlənir. Bir çox insanda həyəcan azaldıqdan sonra ifraz olunan şəkər adsorbsiya olunur. Lakin bəzi insanlarda bu proses diabet riskini artmasına səbəb olur. Həyəcan vəziyyəti insanin imum sistemində də bir sıra xəstəlikləri yarada bilər (Glaser, R., Rice, J., Sheridan, J., et al. 1987). Stressin bir nəticəsi olaraq orqanizmdə ifraz olunan kortizon hormonu immun sistemini ləngidərək xəstəliklərlə mübarizə gücünü zəiflədir. Həyəcanın həzm sistemi üzərində də təsiri mövcuddur. Ən əsasıda qida vərdişlərinin dəyişərək az və ya çox qida qəbulu formasında dəyişir. Sağlam olmayan qidaların tərkibində vitaminlərin az olmasi ilə əlaqədar bağırsaqda baş verən sorulma prosesi yaxşı həyata keçmir və bu da qarın ağrısı, bulantı, ishal və ya qəbzlik kimi problemlərə səbəb ola bilir. Həyəcan cinsiyyət sistemində də bir çox problemlərə yol açır. Xronik həyəcan kişilərdə testesteron hormonunun ifrazı və sperm əmələ gəlməsinə təsir edə bilər. Eynin zamanda erksiya pozğunluğuna və ya cinsi zəifliyə gətirib çıxara bilər. Qadınlarda isə menisturasiya tsiklinin dəyişməsinə və prememenistural semptomların ( əsəbilik, yorğunluq, qərarsızlıq və s. ) artmasına səbəb olur. Həyəcan halında olan zaman ruhi vəziyyətimizdə də dəyişikliklər yarana bilər, daha yorğun və normaldan daha çox əsəbilik formalaşar. Həyəcanın orqanizmə yüksək təsiri yuxuya getməkdə çətinlik və narahat gecələr keçirməyimizə səbəb ola bilər. Buda zaman keçdikcə koqnitiv fuksiyalarda bir işə yönəlmə, diqqət, yaddaş, öyrənmə qabiliyyətlərinə və s. mənfi təsir edə bilər (Vivian, N.G., Koh, D., Chia, S.E., 2003). Əsəb, qayğı, kədər, unutqanlıq, yuxusuzluq, depressiya, alkoqol və narkotik vərdişləri, konsentrasiya və insanlarla uyğunlaşmada pozğuntuları kimi narahatlıqlar stresin səbəb olduğu psixolojik və psixiatrik pozğunluqlardır. İnsan özü stresin ilkin mərhələlərində mübarizə aparmağı öyrənməlidir. Lakin bunu edilə bilinmədiyi halda bu vəziyyət biraz daha irəli gedib xroniki hal almamlışdan qabaq bu situasiyanı qəbullanıb bir terapevtə müraciət etmək lazımdır.

Bundan əlavə, beyinin uzun müddət BETA dalğaları vəziyyətində qalması stress, yorğunluq ,hətta depressiyaya belə səbə ola bilər. Təhlükə anı keçtikdən sonra beyin bir alt səviyyədə olan ALFA dalğalarına kecid edə bilər (Dr. Sezer Ş. Komsuoğlu, Dr. Hamit M.Selekler, Dr. Murad Alemdar 2008).

Yerkes-Dodson qanunu fərdin məhsuldarlığı və həyəcanı arasında birbaşa əlaqəni təklif edir. Bu qanuna görə, yüksək səviyyədə oyanma fərdin fəaliyyətini müəyyən nöqtəyə qədər təkmilləşdirə bilər. Yerkes-Dodson Qanunu iddia edir ki, məhsuldarlıq və həyəcan arasında birbaşa əlaqə var. Psixoloqlar Robert M. Yerkes və John Dillingham Dodson bu qanunu 1908ci ildə inkişaf etdirdilər. Yerkes-Dodson Qanununda deyilir ki, məhsuldarlıq fizioloji və ya zehni oyanma ilə artır, ancaq müəyyən bir nöqtəyə qədər. Həyəcan səviyyəsi çox yüksək olduqda, performans azalır. Bu qanuna görə, həyəcanı və performansı artırmağın ən yaxşı yolu ayıq qalmağımıza imkan verən tapşırıqlar üzərində işləməkdir (Şəkil 1). Yerkes və Dodson öz təcrübələrində elektrik şokunun siçovulları labirintdən bir ucdan digərinə keçməyə sövq edə biləcəyini kəşf etdilər. Lakin, şok həddindən artıq həddə çatdıqda, onların performans səviyyələri azaldı və onlar sadəcə qaçmağa çalışdılar. Təcrübə sübut edir ki, onların

oyanma səviyyəsi onlara diqqəti cari vəzifəyə yönəltməyə kömək edir, ancaq müəyyən bir nöqtəyə qədər (Robert M. Yerkes , John Dillingham Dodson, 1908).




**Şəkil 1.** Yerkes-Dodson qanunu (Yerkes and Dodson, 1908).

Bəzi tədqiqatlardada imtahan həyəcanının təcrübədən asılı olaraq intensivliyinin dəyişdiyi göstərilir. İlk imtahan zamanı olan həyəcan səviyyəsi uzun müddətli təcrübələrdən sonra tədricən azala bilər. Zadar Universitetində aparılmış bir araşdırmada psixologiya tələbələrinin eyni rübdə verdikləri imtahanlarda stress səviyyələrində böyük bir dəyişiklik olmayıb. Lakın nəzərə alınsa ki, bir rübdə imtahanlar arası müddət qısadır bu nəticə tam da doğru hesab olunmaz (Zadar, Croatia Received June 20, 2011) . O səbəbdən bu hadisə uzun müddətli bir araşdırmada tədqiq olunur . Carreras, P. və Fernandez Castro birinci və ikinci kurs universitet tələbələrində imtahan stressinə uyğunlaşma üzərində tədqiqat aparır. Nəticədə birinci kurs tələbələrinin həyəcan səviyyələri ikinci kurs tələbələrinin həyəcan səviyyələrinə nisbətdə yüksək çıxır (Carreras, P. and Fernandez Castro, J. 1998).

Eyni zamanda imtahan həyəcanı qavrayış proseslərinədə təsir edir. Kalifoniya universitetində aparılmış bir tədqiqatda bakalavr tələbələri və hüquq tələbələrinin vəkillik imtahan nəticələrini gözləyərkən stresslərinin zaman qavrayışına olan təsiri araşdırılıb. Tələbələr 3 qrupa ayrılıb və hər qrupda imtahanların nəticələrinin elan olunması fərqli zamanlarda olub. I qrup 5 gün, II qrup 4 ay , III qrup 1 il gozləmə müddəti verilib (Kyla Rankin Kate Sweeny Sandra Xu University of California p 9-20) . Nəticə etibari ilə tələbələr zamanın gec keçdiyini yəni zaman qavrayışının uzandığını və uzun müddətli bu hallarında yuxusuzluğa, hallisunasiyalara səbəb olduğu göstərilib .Həmcinin uzun müddətli gözləmə dövründə olan tələbələrə xaricdən imtahanla bağlı sual verildikdə və ya imtahanla əlaqəli danışıldıqda həyəcan səviyyəsinin yüksəldiyi müşahidə olunub.Bütün tədqiqatlarda sübut olunurki istənilən stress növü diqqəti cari vəziyyətlərə yönəlməyə kömək edir, lakin müəyyən nöqtəyə qədər ( Robert Hoskin Final submission: May 2014).

Mürəkkəb bir zehni proses olan yaddaşa müsbət və ya mənfi təsir edən fərqli faktorlar mövcutdur. Həyəcanda bunlardan biridir. Psixologiyadada qəmqinlik, sevinc, qəzəb, qayğı, qorxu və s. kimidə həyəcanlar mövcutdur. Həyəcan yaddaşımıza müxtəlif formada təsir edə bilər. Həyəcan halı yadasalma prosesinə böyük təsir göstərir. Məsələn bizi həyəcanlandıran bir hadisə yaddaşımızda daha dərin iz qoyur nəyinki emosional dəyəri aşağı olan bir hadisə. Həyəcanın yaddaşa olan bir digər təsiridə pozucu nəticəsinin olmasıdır. Bəzən qorxu, qayğı, qəzəb kimi həyəcanların xatırlanması bizim diqqətimizin mərkəzləşməsinə mənfi təsir edə bilər. Bu durumu çoxunluqla tələbəlr imtahanlarda yaşayır. İmtahandan əvvəl hiss edilən və ya imtahan ərafəsində yaranan yüksək qayğı diqqəti pozaraq oxunanı anlamağı və yaddaşdakı məlumatları xatırlamağı çətinləşdirir. Mənfi emosional dəyəri olan hadisələrdən əlavə müsbət dəyərləndirdiyimiz ehtirs, sevinc, xoşbəxtlikdə yadasalma prosesinə pozucu təsir göstərə bilər. Həyəcanın yaddaş üzərində yaratdığı başqa bir təəssüratda " kontekst"lə əlaqəlidir. Kontekst dedikdə hadisənin baş veriyi andakı mühiti, zamanı və emosiyaları kimi xüsusiyyətlər nəzərdə tutulur. Bir hadisəni yaşandığı zaman hiss edilən situativ həyəcan, həmin hadisəni yadasaldıqda daha ətraflı təsəvvür etməyimizə imkan verir. Məsələn kədrli mühitdə öyrəndiyimiz məlumat kədərli mühitdə yada düşür. Eyniylə sevincli və xoşbəxt bir vəziyyətdə olduğumuz zaman

öyrənilən məlumat və ya baş verən hadisə oxşar duyğulara sahib olduğumuz zaman daha asan xatırlanır. Kontekstin təsirini yalnız həyəcanla məhdudlaşdıra bilmərik. Xatırlamaq istədiyimiz bir şeyi öyrəndiyimiz və ya yaşadığımız zaman digər amillərdə xatırlamağa təsir edir. Günün hansı saatında və hansı mühitdə oxuduğumuzdan asılı olmayaraq eyni mövzuları o zaman və oxşar mühitdə daha asan xatırlayırıq. Məsələn səhər, sakit bir mühitdə öyrəndiklərimizi xatırlamaq daha asandır. Həyəcanın yadasalmaya bir təsiridə "bağlanmaq (asıllıq)" anlayışı ilə ifadə edilir. Repressiv düşüncələr, impulsların, xatirələrin və s.-in yadasalınması və şüurlu səviyyədə qavranılması, güclü narahatlıq və ya günahkarlıq kimi mənfi emosiyalar yarada bilməsidir (Boström, Patrik University of Skövde 2018).

Tədqiqat qrupu olaraq imtahan zamanı emosional gərginlik halının koqnitiv funksiyalara olan təsirini araşdırmaqda bir neçə səbəbimiz var idi: məsələn, həyəcan halına olan psixoloji maraq. Çünki həyəcan insan təcrübəsində mühüm rol oynayan mürəkkəb duyğudur və bizi maraqlandıran ən əsas məqamlarda həyəcanın necə yarandığı, ifadə edildiyi və tənzimləndiyini, habelə onun davranış və rifaha təsirini anlamaqda əsas məqsədlərimizdən idi. Həyəcanın beyindəki motivasiya və mükafatlandırma sistemləri ilə rabitəsini aşkarlamaq idi. Həyəcanın tədqiqi beynin mükafatlandırıcı stimullara necə reaksiya verdiyi və bunun davranışa, qərar qəbul etmə prosesinə necə təsir etdiyini anlamağa kömək edə bilər. Həyəcan halının emosional tənzim mexanizmini öyrənmək idi. Həyəcanın dərk edilməsinin emosiyaların tənzimlənmə strategiyaları və fərdlərin sıx müsbət emosiyaları necə idarə etmələri haqqında fikirlər verə bilir. Həyəcanın sosial qarşılıqlı əlaqə mexanizmini öyrənməkdir. Həyəcan çox vaxt sosial kontekstlərdə, məsələn yığıncaqlarda və ya qrup fəaliyyətləri zamanı yaşanır. Həyəcanın öyrənilməsidə bizə onun sosial əlaqə və ünsiyyətdəki rolunu anlamağada kömək edir. Ümumilikdə, həyəcanla bağlı araşdırmamızda insan emosiyasını, davranışını və rifahını anlamaq bizim üçün olduqca vacibdir və onunda psixologiya, nevrologiya, sosiologiya və s. kimi sahələrə təsiri var.

**TƏDQIQAT METODU**

Koqnitiv göstəricilərin həyəcan səviyyəsindən asıllığını tədqiq etmək üçün ilk olaraq Spilberqer-Xanin hazırladığı situativ və fərdi həyəcan testlərindən istifadə etmişik. Yüksək həyəcan səviyyəsi psixosomatik xəstəliklərlə, aşağı həyəcan səviyyəsidə depressiv vəziyyət və aşağı motivasiya səviyyəsinə gətirib çıxarır. Həyəcan şkalası Ch.D.Spilberger və Yu.L.Xanın tərəfindən təkmilləşdirilib. Şkalanın rusdilli versiyası reaktiv və şəxsi narahatçılıq şkalası kimi tanınan STAI-də (1976, 1978) geniş yayılmışdır. Yu.L.Xanda bu texnikanı uyğunlaşdırıb standartlaşdırdı. Testdə situativ (reaktiv) həyəcan və şəxsi həyəcan nəticəsində narahatlıq müəyyən edilir və bunun nəticəsindədə koqnitiv funksiyalara təsirdə öyrənilir.

Situativ həyəcan hər bir insana xasdır və müəyyən bir mühitdə yaşanan duyğularla xarakterizə olunur: gərginlik, narahatlıq, əsəbilik və s. Belə duyğular mövcut vəziyyətdə emosional reaksiya kimi yaranır, intensizvliyi ilə fərqlənir və zamanla dəyişə bilir. Fərdi həyəcan isə daimi bir dəyərdir və insanın temperamentindən, xarakterindən, tərbiyyəsindən və xarici amillərə cavab vermək üçün müəyyən strategiyalar tətbiq etmək bacarığı ilə müəyyən edilir.

Test iki sual blokundan ibarətdir. Birinci blokda 20 sual hazırda hiss edilən asılı olaraq cavablandırılır. İkinci blokdakı 20 sualda isə adətən necə hiss edildiyindən asılı olaraq cavab seçilir.Situativ həyəcan (SH) göstəriciləri $\sum 1 - \sum 2 + 50$ formulu ilə hesablanırlar. $\sum 1-$ şkalanın 3, 4, 6, 7, 9, 12, 13, 14, 17, 18-ci bəndlərinin cəmidir. $\sum 2$ – isə bütün qalan rəqəmlərin (1, 2, 5, 8, 10, 15, 16, 19, 20-ci bəndlər üzrə) cəmidir. Fərdi həyəcan (FH) göstəriciləri isə $\sum 1 - \sum 2 + 35$ formulu ilə hesablanır. $\sum 1-$ şkalanın 22, 23 24, 25, 28, 29, 31, 32, 34, 35, 37, 38, 40-cı bəndlərinin cəmi, $\sum 2$ – isə 21, 26, 27, 30, 33, 36, 39-cu bəndlər üzrə qalan rəqəmlərin cəmidir. İnterpretasiya zamanı nəticəni belə qiymətləndirilməlidir: 30-a qədər - aşağı həyəcanlılıq, 31-45 – orta həyəcanlılıq, 46 və ondan çox isə yüksək həyəcanlılıqdır. Orta həyəcanlılıq səviyyəsindən xeyli kənara çıxma, yüksək həyəcanlılıq insanın mütəxəssis kimi qiymətləndirilməsi situasuyalarında onun güclü həyəcan vəziyyətinə düşməyə meylli olmasını göstərir. Bu halda situasiyanın və məsələlərin subyektiv qiymətini aşağı salmaq və diqqəti fəaliyyətin dərindən düşünülməsinə və uğura inam hissinin formalaşmasına vermək lazımdır.

Test ümumilikdə 16 yaşdan yuxarı şəxslər üzərində tədqiq edilir. Bizim tədqiq etdiyimiz kurslardakı şəxslərdə 17-21 yaş aralığına daxildir. Tədqiqatımız Qərbi Kaspi Universitetində təhsil

alan I, II, III, IV kurs tələbələri üzərində aparılıb. Hər kursda ortalama 25 nəfər üzərində test tətbiq olunub. Tədqiqatlar imtahanın həyəcana təsiri öyrənmək üçün imtahan sesiyyasından əvvəl, adi dərs günlərindən birində keçirilib.Bütün tələbələr eyni şəraitdə testləşdirmə prosesinə cəlb edilib.

Tədqiqatların nətıcələrinin statistik işlənməsi zamanı məlum olmuşdur ki, I kurs üzrə təhsil alan tələbələrin situativ həyəcan səviyyələri 34,75 bal , fərdi həyəcan göstəricisi 38.7 bal; II kurs üzrə təhsil alan tələbələrin situativ həyəcan səviyyələri 42.25 bal, fərdi həyəcan göstəricisi 44.3 bal; III kurs üzrə təhsil alan tələbələrin situativ həyəcan səviyyələri 40.35 bal, fərdi həyəcanı 42.1 bal; IV kurs üzrə təhsil alan tələbələrin isə situativ həyəcan səviyyələri 41.82 bal və fərdi həyəcanı 46.3 bal olmuşdur. (**Şəkil 2**).




**Şəkil 2. I,** II, III və IV kurslarda təhsil alan tələbələrin fərdi və situativ həyəcan göstəriciləri.

Həyəcanın koqnitiv funksiyalar üzərindəki təsirini öyrənmək üçündə qısa müddətli yaddaşı tədqiqi edən " Ədədə görə yaddaş testi" -dən istifadə etdik. Bu test vasitəsi ilə qısamüddətli vizual yaddaşı, onun həcmini və dəqiqiliyini qiymətləndirmək mümkündür. Yadda saxlanması lazım olan 12 rəqəmdən ibarət cədvəl hazırlanır. Hazırlanmış cədvəl 20 saniyə ərzində göstərilir və sonradan cədvəl götürülür. Tədqiq olunan şəxs xatırladığı bütün rəqəmləri yazmalıdır. Qısa müddətli vizual yaddaş düzgün qeyd edilən rəqəmlərin sayı ilə qiymətləndirilir. Yetkin şəxslər üçün norma hüdudu 7 ±2 bal sayılır. Nətəcədə qısa müddətli yaddaş I kurs üzrə təhsil alan tələbələrdə 8.02 bal, II kurs üzrə təhsil alan tələbələrdə 8.25 bal , III kurs üzrə təhsil alan tələbələrdə 8.95 bal, IV kurs üzrə təhsil alan tələbələrdə 8.07 bal göstərilir (Şəkil 3).




**Şəkil 3.** I, II, III və IV kurslarda təhsil alan tələbələrin qısa müddətli yaddaşın göstəriciləri.

**NƏTICƏ**

Ümumilikdə, aparlan tədqiqatların əldə edilən nəticələrində yaş artdıqca situativ və fərdi həyəcanda yüksəlmə müşahidə olunur. Tədqiqatımızın imtahandan əvvəli adi dərs günülərində aparıldığını və tələbələrin imtahan hazırlığı mərhələsində olduğunu nəzərə alsaq bu optimal həyəcan səviyyəsi sayıla bilər. Optimal həyəcan səviyyəsində orqanizmdə baş verən somatik dəyişikliklər koqnitiv funksiyaların (diqqət, yaddaş, yadasalma prosesi və s. ) məhsuldarlığının artmağına müsbət təsir edir. Optimal həyəcan səviyyəsindən yuxarı həyəcan səviyyəsi isə, əksinə məhsuldarlığın və koqnitiv funksiyarda daha da zəifləməyə səbəb olcaq. Yerkes-Dodson qanununda da deyilir ki, həyəcan koqnitiv proseslərin məhsuldarlığına səbəb olur , ancaqhəyəcanın müəyyən səviyyəsinə qədər və bu səviyyə hər birinsan üçün optimal həyəcan səviyyəsi sayılır. Həyəcan səviyyəsi çox yüksək olduqda, optimal səviyyəni keçdikdə əks proses koqnitiv funksiyalarda eniş müşahidə olunur.

Beləliklə, tədqiq olunan tələbələrdə optimal həyəcan səviyyəsinin koqntiv prosesləri aktivləşdirdiyini müşahidə etdik. Qısa müddətli yaddaş göstəricisinin normadan yüksək olması və orta həyəcan səviyyəsi tədqiq olunan tələbələrin praktiki sağlam olmasını, beyinin funksional aktivliyini və lazım olan anda koqnitiv proseslərin aktivləşməsinə imkanı olduğunu qübut etdi. Ümumilikdə, koqnitiv proseslərin həyəcan prosesləri ilə əlaqəli olması qeyd olundu.

**ƏDƏBIYYAT SIYAHISI**

6. Kərəmova N.Y. Stress və onun koqnitiv proseslərlə qarşılıqlı əlaqələrinin tədqiqi problemi. Gənc alimlərin əsərləri, Bakı, №7, 2013, səh.221-228.

7. Искакова У.Б., Абишева З.С., Журунова М.С., Жетписбаева Г.Д., Исмагулова Т.М. Ситуативная тревожность и психо-эмоциональное состояние студентов во время рубежного контроля // Международный журнал прикладных и фундаментальных исследований. – 2016. – № 11-5. – С. 900-902;

8. Proceedings of the I International Scientific and Practical Conference 27-28 February 2024 Madrid.Spain 2024 p 117-118.

9. Vivian, N.G., Koh, D., and Chia, S.E., Examination Stress, Salivary Cortisol, and Academic Performance, Psychol. Rep., 2003, vol. 93, p. 1133.

10.Yerkes RM, Dodson JD. The relation of strength of stimulus to rapidity of habit-formation. J.Comp.Neurol.Psychol. 1908;18:459–482.

# MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN MƏNƏVİ TƏRBİYƏSİNDƏ ƏTRAF ALƏMİN ROLU

**ABDULXALIQOVA İLAHƏ**
Bakı Slavyan Universiteti
Magistratura, Pedaqogika elmləri
*E-mail: ilahabdulxaliqova@gmail.com*
BAKI, AZƏRBAYCAN

**XÜLASƏ**

Məqalədə məktəbəqədər yaşlı uşaqların mənəvi tərbiyəsində ətraf aləmin və məktəbəqədər təhsil müəssisələrinin rolundan bəhs edilmişdir. Aydındır ki, mənəvi tərbiyənin formalaşmasında ilk olaraq ailənin daha sonra isə müəllimlərin rolu böyükdür. Məqalənin aktuallığı təbiətin mühafizəsinin bütün dövrlərdə olduğu kimi hazırda da bizim üçün ən vacib xarakter daşımasıdır. Əsas məqsəd uşaqlara təbiətdəki, onları əhatə edən mühitdəki gözəllikləri göstərməklə mənəvi tərbiyənin formalaşdırılmasıdır. Qeyd etdiyim müəyyən təlim formaları vasitəsilə məktəbəqədər təhsil müəssisələrində praktik olaraq bunu uşaqlarla birlikdə tətbiq etmək olar. Üstünlüyü isə uşaqların hələ

məktəbəqədər yaşlarından ekoloji tərbiyəyə yiyələnməsidir. Nəticə etibarı ilə uşaqların erkən yaşdan məhz bu cür yetişdirilməsi onların bir şəxsiyyət kimi formalaşmasında mühüm rol oynayır.

**SUMMARY**

The article talks about the role of the surrounding world and preschool educational institutions in the moral education of preschool children. It is clear that the role of the family first and then teachers is great in the formation of moral education. The relevance of the article is that nature protection is the most important character for us now, as in all times. The main goal is to form moral education by showing children the beauty in nature and the environment that surrounds them. Through certain forms of training that I have mentioned, it can be applied practically together with children in preschool educational institutions. The advantage is that children acquire ecological education from preschool age. As a result, this kind of upbringing of children from an early age plays an important role in their formation as a personality.

**AÇAR SÖZLƏR:** məktəbəqədər yaş-1, ətraf aləm-2, tərbiyə-3, inkişaf-4, məktəbəqədət təhsil müəssisəsi-5, təbiət-6.

**KEY WORDS:** preschool age-1, enviroment-2, education-3, development-4, preschool educational institution-5, nature-6.

## GİRİŞ

Məktəbəqədər yaşlı uşaqların mənəvi tərbiyəsində ətraf aləmlə tanışlığın mühüm rolu vardır. Bu yaşda uşaqları müşahidə etdikdə onların ətraf aləmə, həmçinin onları əhatə edən mühitə olan marağı diqqət çəkir. Bu isə ətrafını yeni-yeni kəşf etməyə başlayan uşaqlar üçün olduqca təbii haldır. Çünki bu yaşda başlayan maraq yetkinlik dövrünə qədər, şəxsiyyətin formalaşması müddətində də davam edir və təlim, oyun fəaliyyəti ilə birgə mürəkkəb bir inkişaf yolu keçir.

Ümumiyyətlə, uşağın ilk maraqları onların həm maddi, həm də mənəvi tələbatlarının ödənilməsinə istiqamətlənmiş olur. Uşaq böyüdükcə onu əhatə edən mühit dəyişir, dolayı yolla maraqları və tələbatları da dəyişmiş olur. Lakin uşağa inkişafı boyu təsir göstərən ilk cisimlər, ilk maraqlar keçici xarakter daşıyır. Zamanla həmin cisim başqası ilə əvəz edildikdə, maraqlar da asanlıqla yerini yeni maraqlara verir. Bütün bu maraqlar, meyllər məktəbəqədər yaşlı uşaqların mənəvi tərbiyəsinin formalaşmasına şərait yaradır. Ətraf aləmlə tanışlıq zamanı uşaqların bitki, heyvan aləmi həmçinin təbiət hadisələrinə daha çox maraq göstərməsi, öyrənməyə həvəsli olması təbii sayılır. Çünki uşaq gördüyü hadisələrdən təəccüblənir yaxud gözəl bir mənzərəni seyr edərkən həzz alır və s. Beləliklə də, bütün bu hisslərin mənbəyi məhz bizi əhatə edən təbiətdir. Təbiətdə mövcud olan gözəlliklər, çaylar, göllər, heyvanlar, çəmənlər, meşələr, rəngarəng çiçəklər, bitkilər və onların bir-birilə olan ahəngi insana təsir edir və mənəvi aləmin zənginləşməsində mühüm rol oynayır.

Məlumdur ki, uşağın məktəbəqədər yaş dövründə əldə etdiyi biliklər, vərdişlər və bacarıqlar onun şəxsiyyətinə, bilavasitə gələcəyinə təsir göstərir. Araşdırmalar sübut edir ki, uşaqlar həyatı boyu mənimsəyəcəyi biliklərin əksər hissəsini məhz erkən yaşlarda alırlar. Bu biliklər, qazandığı təcrübələr isə uşağın bütün həyatı boyu unudulmur. Buna görə də məktəbəqədər yaşlı uşaqların təbiətdə baş verən hadisələr, təbiət gözəllikləri ilə bilavasitə qazandıqları biliklər onların sonrakı inkişafı boyu istifadə olunur. Eyni zamanda uşaqların mənəvi hisslərinin formalaşmasında da müstəsna xidmətləri vardır.

Bundan əlavə məktəbəqədər dövrdə uşaqların emosional-mənəvi inkişafı onları əhatə edən ətraf aləmlə sıx bağlıdır. Hər bir fəsildə təbiətin dəyişilməsi, hər fəsildə müşahidə etdikləri fərqli təbiət, rəngarəng dünya uşaqların emosional hisslərinin formalaşmasına və inkişafına şərait yaradır. Həmçinin uşağın ətraf aləmlə müşahidədən qazandığı təəssüratlar onun təfəkkürünün inkişafına da səbəb olur. Belə ki, bu biliklər uşağın kiçik həcmli nağıllar yaxud rəsm işləri yaratmasına da müsbət təsir göstərir.

Uşağın mənəvi tərbiyəsinə məktəbəqədər müəssisələrdə keçirilən bayram tədbirləri, əyləncəli oyunlar, səhnəciklər də təsir göstərir. Həmçinin ekskursiya və gəzintilər uşaqlarda müsbət emosiya oyadır, onların mənəvi aləminin zənginləşməsində böyük rol oynayır. Ekskursiya planlaşdırarkən müəllimlər xüsusilə diqqətli olmalıdırlar. Belə ki, ekskursiya olunacaq yer əvvəlcədən müəyyənləşdirilməli, həmin prosesdə uşaqlarla aparılacaq söhbət, uşaqların verəcəyi suallar və s. aydınlaşdırılmalıdır. Nəzərə almaq lazımdır ki, bizim hal-hazırda bir qədər önəmsiz hesab etdiyimiz, yetəri qədər məlumatlı olduğumuz və daim gördüyümüz hadisələr, obyektlər məktəbəqədər yaşlı

uşaqlarda heyrət doğura bilir. Beləliklə bütün bu amillərin mənəvi təsir xüsusiyyətlərini nəzərə alsaq, ekskursiya, gəzintilərin, kiçik həcmli təcrübələrin aparılması olduqca vacibdir.

Müşahidələr göstərir ki, kiçik yaşlı uşaqlar bu prosesə böyük bir maraqla qoşulurlar, qazandıqları təcrübələr isə onlar üçün əvəzsiz rol oynayır. Müxtəlif yaş qrupları daxilində aparılan təlim məşğələləri, kiçik həcmli şeirlərin öyrədilməsi uşaqların inkişafı üçün vacibdir. Eyni zamanda təlim məşğələlərində uşaqların yaş səviyyəsindən asılı olaraq xalq yaradıcılığımıza dair nümunələrin göstərilməsi onların mənəvi aləminin inkişafına yardımçı olur. Ə.Ş.Həşimov və F.B.Sadıqov belə yazır: "Xalq pedaqogikası ilə tanış olmağın praktik əhəmiyyəti də az deyildir. Bu da onunla əlaqədardır ki, xalqın pedaqoji irsini özündə yaşadan materiallar gənc nəslin tərbiyəsində bu gün də əhəmiyyətli rol oynayır." (Ə.Ş.Həşimov, F.B.Sadıqov, 1993). Yaşadığımız şəhər haqqında müəllimlərin məlumat verməsi uşaqların həm yaşadığı şəhəri yaxşı tanımasına, həm də biliklərinin artmasına şərait yaradır. Uşaqların hələ kiçik yaşlardan vətənpərvər ruhda böyüdülməsi bizim ən vacib vəzifələrimizdən biridir. Bu məqsədlə Azərbaycan Respublikası, Azərbaycan Ordusu haqqında uşaqların yaşlarına müvafiq biliklər verilməsi, dövlət atributlarının tanıdılması və s. mühüm əhəmiyyət daşıyır. Qeyd etdiyim bütün bu iş formaları uşaqların mənəvi tərbiyəsində xüsusi yer tutur.

Uşaqlara ətraf aləm haqqında biliklər verməklə, onlarda düzgün dünyagörüşü formalaşdırmaq tərbiyə prosesinin əsasını təşkil edir. Belə ki, ətraf aləm haqqında müxtəlif biliklərə yiyələndikcə uşaqların lüğət ehtiyatı artır. Onlar saysız-hesabsız suallar verməklə ətrafında baş verən hadisələri, onların diqqətini çəkən obyekləri öyrənmək istəyirlər. Bu zaman uşaqlara onların anlama səviyyəsinə uyğun olaraq lakonik və ən önəmlisi düzgün cavablar vermək lazımdır. Bu yaşlı uşaqlar ətrafdan eşitdikləri və öyrəndikləri məlumatları olduqca tez mənimsəyirlər. Öyrəndikləri bu yeni biliklər əsasında yaşıdları və yaşlılarla ünsiyyət qura bilirlər. Eyni zamanda lüğət ehtiyatının artması nəticəsində uşaqlar şəkil üzərində hekayə qurub, danışa bilirlər. Bununla da uşaqlarda düzgün nitq formalaşır, onlar rəvan və rabitəli nitqə sahib olurlar. Necə ki, günəş bir damcı suda əks olunur, valideynlərin verdiyi tərbiyə də uşaqlarda məhz o cür özünü göstərir. Buna görə də uşaqların sonrakı həyat tərzi, mənəvi və əxlaqi dəyərlərinin formalaşması ata və ananın tərbiyəsindən çox asılıdır.

Tədqiqat işi strukturuna gəldikdə isə mövzu giriş, yarımfəsillər, nəticə və ədəbiyyat siyahısından ibarətdir.

**TƏDQİQAT METODU.** Tədqiqat işi müşahidə metodundan istifadə edərək işlənmişdir.

**NƏTİCƏ.** Nəticə olaraq aydın olur ki, məktəbəqədər yaşlı uşaqların mənəvi tərbiyəsinin formalaşmasında ətraf aləmin rolu böyükdür. Uğurlu olması üçün isə ailənin və müəllimlərin birgə əməkdaşlığı ilə həyata keçirilməlidir.

## ƏDƏBİYYAT SİYAHISI


1. Azərbaycan Respublikasında məktəbəqədər təhsil proqramı (kurikulumu) (3-6 yaş) Təhsil Nazirliyi.
2. Cəfərova L.K. Müasir məktəbəqədər təhsilin məzmunu."Kurikulum" jurnalı. Bakı, 2014
3. Həsənov A. Məktəbəqədər pedaqogika. Bakı,2011.
4. Həşimov Ə.Ş., Sadıqov F.B. Azərbaycan xalq pedaqogikası. Bakı, 1993.
5. İcma əsaslı məktəbəqədər təhsil proqramı.ARTİ. UNİCEF. 2017
6. Məktəbəhazırlıq qruplarında işin təşkili metodikası. UNİCEF. Bakı, 2017.
7. Mursaqulova R., Əliyeva Ş. Məktəbəqədər yaşlı uşaqların təbiətlə tanış edilməsi metodikası. Bakı,2009.
8. Uşaqyönümlü, demokratik məktəbəqədər təhsil. Müasir Təhsil və Tədrisə Yardım Mərkəzi, 2021

# YENİYETMƏLƏRDƏ BULLİNQ XÜSUSİYYƏTLƏRİ VƏ ONLARIN MILLI XARAKTERI

**ƏLİYEVA PƏRVİN ZAKİR QIZI**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Pedaqoji psixologiya kafedrasınn doktorantı
*Email: parvin.aliyeva15@gmail.com*
*UOT: 159.9:37.015.3 https://orcid.org/0000-0002-3196-9020*
BAKI, AZƏRBAYCAN

XÜLASƏ

Bullinq psixoloji zorakılığın bir forması olub yeniyetmələrdə xarakterin formalaşmasına çox mənfi təsir edir. Bir insana psixoloji təzyiq nəticədə bu təzyiq obyekti, daimi stress yaşamağa başlayır.

Zorbalıq vəziyyətindən kənar yeniyetmələrin həyat kontekstinin təbiəti və məzmunu: ailədəki münasibətlər, başqa, qoruyucu yeniyetmə qrupunun olması, həyatın ümumi konteksti və təhsil müəssisəsində zorakılığa münasibət də daxil edilməlidir. tədqiqat vəziyyəti. Bu yanaşma yeniyetmə qurbanlara, şahidlərə və cinayət törətmiş şəxslərə psixoloji, pedaqoji və sosial yardım proqramlarının hazırlanmasının əsas istiqamətlərini müəyyən etmək imkanını açır. Bullinqə məruz qalan uşaqlarda stress tez-tez özünü fizioloji aspektdən göstərir: onlar iştahanı itirir, gecə qarabasmalarından əzab çəkir, yuxuda ağlayır, baş ağrıları onlara əziyyət verir. Bəzən onlar fiziki cəhətdən özlərinə zərər yetirə bilərlər. Vurğulamaq lazımdır ki, yeniyetmə zorakılığının şəxsi inkişaf üçün dağıdıcı nəticələri təkcə qurbanlara deyil, eyni zamanda zorakılığın cinayətkarlarına və şahidlərinə də xasdır. Bu, yeniyetmə qrupuna və bütövlükdə yeniyetmə icmasına sistemli təsir göstərir.

İnanırıq ki, yeniyetmələrdə bullingin tədqiqi həm yeniyetmə zorakılığının xüsusiyyətlərinin, həm də qurbanların və şahidlərin niyyətlər, məqsədlər, dominantlıq ehtiyacı, subyektiv nəzarətin dərəcəsi və məzmunu və emosional təcrübə kontekstində öyrənilməsini əhatə etməlidir. . Zorbalığı öyrənərkən, yeniyetmə qrupda qrup proseslərini və zorakılıq iştirakçılarının travmatik vəziyyətlərdən qaçmaq üçün imkanlarını öyrənmək vacibdir.

**AÇAR SÖZLƏR: Yeniyetmə, bullinq, mənfi xarakter əlamətləri**

## GIRIŞ

Yeniyetməlik dövrü insanın ən çətin psixoloji mərhələlərindən hesab olunur. Psixoloji nöqteyi-nəzərdən yeniyetməlik mərhələsi hər kəsdə fərqli keçir. Bu mərhələdə yeniyetmələr özlərini təsdiq etmək, valideynlərindən asılı olmadan müstəqil davranmaq, kütlədən seçilmək istəyirlər. Elə bu zaman da bəzən yeniyetmələrin şəxsi həyatlarında, eləcə də valideynləri ilə münasibətlərində ciddi problemlər özünü göstərməyə başlayır. Aqressiv davranış yeniyetmələr arasında geniş yayılıb və get-gedə artmaqdadır.Belə yeniyetmələr cəmiyyətə olan dəyər və münasibətləri deformasiyaya uğradır. Yeniyetməlik dövrü insan inkişafının ən stresli və problemli keçən dövrüdür. Bu dövrdə insanda başlıca dəyişikliklər baş verir. Dəyişikliklər bədəndə, fikirlərdə, hətta hislərdə müşahidə olunur. Güclü qorxu, çaşqınlıq, şübhə hissi yeniyetmənin problemlərini həll etməsinə, qərar qəbuluna mane olur. Eləcə də yeniyetmə təzyiqlər səbəbindən uğur əldə edə bilmədiyini düşünür [4, s. 468].

Eqoizm,ətrafdakıların hisslərinə laqeydlik,neqativ davranış belə yeniyetmələrin tipik xüsusiyyətlərindəndir.Bəzi tədqiqatçılar yeniyetmə aqressiyasının səbəblərini yeniyetməlik dövründə yaranan fizioloji dəyişiklikdə görür.Cinsi yetişkənlik dövründə endokrin vəzilərində olan dəyişikliklər nəticəsində yeniyetmənin davranışında emosional reaksiyalar üstünlük təşkil etməyə başlayır.

Bu yaş dövründə ən çox rast gəlinən problemlərdən biri də bullinq problemidir. Bu məktəblər və uşaq qrupları olan arasında intihar riskini əhəmiyyətli dərəcədə artırır, yeniyetmələr arasında təcavüzün artmasına, emosional və nevrotik problemlərə səbəb olur. Məktəb mühitində bullinq son vaxtlar bir sıra ölkələrin təhsil müəssisələri üçün ciddi narahatlıq yaradan problemlərdən biridir. Demək olar ki, hər bir şagird ən azı bir dəfə digər şagirdlərlə qarşılıqlı təsir prosesində bulling ilə qarşılaşır.

Belə ki, statistik məlumatlar göstərir ki, 12-18 yaş arası məktəblilərin 20 %-i məktəbli mühitində bullinqin məsxərə, qısnama, hədə-qorxu, birgə fəaliyyətdən təcrid etmə və s. kimi müxtəlif formaları ilə qarşılaşır, onlardan 30%-i isə bullinqin törədilməsi prosesində iştirak edir [5].

Bullinq iki formada özünü büruzə verir: fiziki və psixoloji. Statistikaya görə bullinq daha çox natamam ailədən olan uşaqlarda olur. Yəni, onlar bullinqdə həm aqressor kimi, həm də qurban kimi çıxış edirlər. Ya da, tutalım, uşaq görür ki, ata ananı döyür, o, bunu gətirib məktəbdə kiməsə tətbiq edir. Qurban rolunda olan uşaq da eynən elə; evdə görür və əzilən adamın rolunu götürür. Məktəblərdə bullinqin şiddət və təzahürlərinə görə bir neçə dərəcəsi olur. Psixoloji pozuntunun ən ciddi, nəzərəçarpan dərəcəsi fiziki bullinqdir. Yəni fiziki zorakılıqdır. Belə ki, qurban müntəzəm olaraq döyülür, ona zərər vurulur, məsələn, koridorda itələmək, barmağını qırmaq, təpikləmək, dərinin yandırılması, yaraları qopartmaq və s. bu kimi son dərəcə zalım hərəkətlərə məruz qalır. Bullinq passsiv formada da özünü göstərə bilər, belə ki, davranışda qurban ictimai həyatdan təcrid edilərək, sanki ona qarşı edilənləri görmürlər və onu baykot edirlər. Fəal formada şantaj, müəyyən əşyaların əlindən alınması (adətən, pul, telefon, oyuncaq və s.), qurban haqqında qeybətlərin yayılması, ona qarşı mənfi şəraitlərin yaradılması (məsələn, çantasının və ya kitab-dəftərlərin korlanması, oğurlanması, qaranlıq otaqlarda bağlanması və s. ) daxildir. Bullinqin ən çox rast gəlinən variantı **verbal bullinqdir,** bu zaman qurbanın təhqir və ona istehza edilməsi, və digər "lənətlərə" əl atılmasıdır. Texnologiyanın inkişafı ilə əlaqədar, yeni kiberbullinq anlayışı meydana gəlmişdir. Belə ki, təhqiredici hərəkətlər internet vasitəsilə edilir. Qurbana təhdid edici və təhqir dolu e-məktublar göndərilir, habelə insan ləyaqətini alçaldan məktub və yaxud da real və ya montaj edilmiş fotolar göndərilir.

Bullinq bütün dünyada problemdir. İnternet bullinqi var – kiberbullinq! Anonim şəkildə uşağı qaralayır, lağa qoyurlar. Bu səbəbdən uşaqlar intihar edir. Bunun qarşısını almaq üçün xüsusi proqramlar var ki, dövlət bunu alır. Məsələn, ən çox Norveç bu proqramlarla işləyir. Qərbdə belə hallar daha çox yayılıb. Və bunu qərbdə fənn kimi məktəb proqramlarına salırlar. Əsas olan uşağın dəstək hiss etməsidir.

Məktəbdə bullinq zorakılığının iki səbəbi olur: ailədə valideynlər və məktəb işçiləri. Valideynlər arasındakı mənfi davranış, onların ətrafdakılar haqqında mənfi fikirləri övladları tərəfindən əxz edilir və məktəbdə bu hərəkətlər davam etdirilir. Bəzi müəllimlər isə belə hərəkətlərə laqeyid yanaşırlar. Uşaq ehtiyaclarının valideynlər tərəfindən ödənilməməsi, bir çox komplekslər, diqqət və sevginin ayrılmaması da belə zorakılığa səbəb ola bilər. Bu həm də istər qurban, istərsə də aqressor olsun davranışlarının gizlədilməsi yolu ilə daha da artır. Belə ki, uşaq evdə məsələni valideynlərindən gizlədir, valideyn isə uşağına diqqətlə yanaşmır. Psixoloji travma alan uşaq başqalarına zərər yetirmək, onları döymək, incitmək və s. bu kimi yollara əl atır. Müəllimlər tərəfindən bullinq təxribatına yol verilməsi onların peşə və ixtisas səviyyəsinin aşağı olması və ya çox gənc olmaları, kifayət qədər pedaqoji təcrübələrinin olmaması ilə əlaqədar ola bilər.

Aqressiv təqibin qurbanı güclü və ya bacarıqlı olub-olmamasından asılı olmayaraq, istənilən uşaq ola bilər. Ancaq əksər hallarda bu cür davranışların qurbanı olanlar digərləri arasından daha çox seçilənlərdir (qəribə geyim tərzi olan, özünü qəribə aparan və b.). Həmçinin potensial qurbanlar özündən tez çıxan, emosiyalara asan təslim olanlardır. Bullingin fərqli bir xüsusiyyəti, cinayətkarların qurbanın vəziyyətini və davranışını idarə etmək istəyidir. Yeniyetmələrin eksperimental sosial davranışının bir forması kimi çıxış edə bilən situasiyalı aqressiyadan fərqli olaraq, zorakılıq bir yeniyetmə qrupunda status və hökmranlığı təsdiq etməyin davamlı bir yoludur. Beləliklə, zorakılıq situasiya aqressiyasından təkrarlanması, qəsdən alçaldılması və qrupda öz mövqeyini möhkəmləndirmək üçün cinayətkarın hökmranlıq etmək istəyi ilə fərqlənir. Digər zorakılıq növlərində olduğu kimi, qurban müqavimət göstərməkdə acizdir və vəziyyətə çox az nəzarət edir.

Bullerlər isə qadağalarsız böyüyən və valideyn nüfuzuna məhəl qoymayanlardır. Belə uşaqların əksəriyyətində böyüklərin diqqət və etimadı çatışmır. Onların əksəriyyətində xarakterin parlaq ifadə edilmiş narsistik xüsusiyyətləri özünü göstərir. Onlara bütün hallarda başqa insanlar hesabına özünü təsdiq etmək, şəxsi üstünlüyünü sübut etmək lazım olur. Bir qayda olaraq, uşaqlara qarşı zorakılıq nadir hallarda təcrid olunmuş epizodlarda baş verir. Zorakılıq təkrarlanan bir fenomendir. Üstəlik, evdə zorakılığa məruz qalan uşaq tez-tez məktəbdə, həmyaşıdları arasında zorakılığın qurbanına çevrilir. Onun ictimai yerlərdə davranışı da risk almağa yüksək meyli ilə xarakterizə olunur və ya başqalarını aqressiv və ya laqeyd davranmağa təhrik edir.

**ƏDƏBIYYAT SIYAHISI**

11.Seyidov S.İ. və Həmzəyev M.Ə. Psixologiya. Ali pedaqoji məktəblərin bakalavr pilləsi tələbələri üçün dərslik. Bakı: A.R.Təhsil Problemləri İnstitutu, 2007, 626 s

12.Copeland W.E., Wolke D., Angold A., Costello E.J. Adult psychiatric outcomes of bullying and being bullied by peers in childhood and adolescence // Journal of American association psychiatry, 2013: 419-426.

13.Dussich J.P., Maekoya C. «Physical child harm and bullying-related behaviors: A camparative study in Japan, South Africa, and the United States // International journal of offender therapy and comparative criminology , 2007.

14.Seyidov S.İ. və Həmzəyev M.Ə. Psixologiya. Ali pedaqoji məktəblərin bakalavr pilləsi tələbələri üçün dərslik. Bakı: A.R.Təhsil Problemləri İnstitutu, 2007, 626 s

15.Facts about bullying: (Electronic resourse) – 2019 –URL: https://www.stopbullying.gov/-media/facts/index.html#stats

# İNGİLİS DİLİ DƏRSLƏRİNDƏ TƏLƏBƏLƏRDƏ FRAZEOLOJİ BACARIQLARIN FORMALAŞDIRILMASI

**ZÜMRÜD QAFARLI MAHİR**
Azərbaycan Dillər Universiteti
Pedaqogika
*z_qafarli@hotmail.com*
BAKI, AZƏRBAYCAN

**XÜLASƏ**

Məqalədə frazeodidaktikanın məqsədi, frazeoloji birləşmələr, sabit söz birləşmələri vasitəsilə tələbələrdə frazeoloji bacarıqların formalaşdırılması, frazeolji birləşmələrin mənimsənilməsi üçün zəruri olan strategiyaların, yəni öyrənməni təkmilləşdirmək üçün şüurlu şəkildə istifadə olunan prosedur və vasitələrin işlənib hazırlanması və frazeoloji bacarıqların tərkib hissəsi olan dörd öyrənmə strategiyası araşdırılır. Sürətli inkişaf dövründə bugünkü yenilik sabah üçün köhnə məlumatdır. Dillərin öyrənilməsi prosesində də belə bir hadisə görə bilərik. Əgər biz xarici dil öyrənmək istəyiriksə, təbii ki, müxtəlif yanaşma və metodların köməyi ilə onu tez və asanlıqla öyrənəcəyik. Xüsusən də ingilis dilini xarici dil kimi tədris etsək, özümüzdə müəyyən bölmə əsasında onu mərhələli şəkildə öyrənməyimiz məqsədəuyğun olar. Ələlxüsus vizual dilin frazeoloji vahidlərinin tədqiqi çox maraqlıdır və dil haqqında fikirlərimizi məzmunca daha da zənginləşdirir. Xarici dilin effektiv tədrisi müəllimdən həm tədris texnikasında güclü bazaya, həm də dilçilik nəzəriyyəsini hərtərəfli başa düşməyə ehtiyac duyur. Yekun olaraq, frazeoloji bacarıqların inkişaf etdirilməsi baxımından bu ifadələrin başqa dillərlə müqayisəsi, açar sözlərə əsaslanaraq mənalarının ilkin təxmini, öyrənilmiş materialın tədqiqi, tətbiqi və s. bu kimi strategiyalar dil öyrənmə prosesinin produktivliyini artırır. Dildə tez-tez istifadə olunan sabit söz birləşmələrinin öyrənilməsi vasitəsilə tələbələr dildən müxtəlif kontekstlərdə səmərəli və uyğun şəkildə istifadə etmək bacarıqlarını təkmilləşdirə və bununla da ümumi kommunikativ səriştələrini artıra bilərlər.

**AÇAR SÖZLƏR:** sabit söz birləşmələri / frazeoloji vahidlər, frazeodidaktika, frazeoloji bacarıqlar, öyrənmə strategiyaları

## FORMATION OF PHRASEOLOGICAL SKILLS IN STUDENTS IN ENGLISH LESSONS

**SUMMARY**

This article delves into the crucial topic of phraseological education, exploring how we can help students develop essential phraseological skills. The text highlights the significance of using phraseological combinations and fixed word combinations, and developing strategies to master these combinations consciously. The article also examines four learning strategies that are part of phraseological skills, which, if implemented correctly, can significantly improve students' language learning capabilities. In today's fast-paced world, learning a new language is an ever-evolving process. To learn a foreign language quickly and easily, we can use various approaches and methods. When teaching English as a foreign language, it is recommended to learn it step by step based on a specific section. The study of phraseological units of a particular visual language can be an enriching experience, broadening our horizons and deepening our understanding of language. Effective teaching of a foreign language requires a teacher to have a strong foundation in teaching techniques as well as a thorough understanding of linguistic theory. When it comes to developing phraseological skills, comparing expressions with other languages, making preliminary estimations of their meaning based on keywords, studying the learned material, and applying strategies like these can increase the productivity of the language learning process. With these strategies, students can gain a deeper understanding of the language and become confident and proficient speakers. By learning fixed word combinations that are frequently used in the language, students can improve their ability to use the language effectively and appropriately in a variety of contexts, thereby increasing their overall communicative competence.

**KEYWORDS:** fixed word combinations / phraseological units, phraseodidactics, phraseological skills, learning strategies

## GİRİŞ

Nitqimizdə frazeologizmlərin istifadəsi xüsusilə vacibdir, buna görə də frazeologiya məktəbdə öyrənilməyə başlayır və bakalavr proqramına uyğun olaraq universitetdə daha dərindən öyrənilməyə davam edir. Frazeoloji vahidlərin xüsusiyyətlərinə, yəni, obrazlı ifadəliliyə və məna vəhdətinə görə nitqimiz daha parlaq, emosional, təxəyyüllü və ifadəli olur. Məhz buna görə də demək olar ki, bütün məşhur yazıçılar əsərlərinin kolorit və üslubi koloritini yaratmaq üçün frazeoloji vahidlərdən istifadə etmişlər.

Xarici dilin tədrisi zamanı yerinə yetirilməli olan əsas vəzifə ondan ibarətdir ki, ingilis dilinin strukturu və fəaliyyəti haqqında biliklərin və müasir ədəbi dilin əsas normalarının mənimsənilməsi, nitq təfəkküründün, intellektual və yaradıcılıq qabiliyyətlərinin intensiv inkişafı ilə mütləq şəkildə birləşdirilməlidir. Məhz buna görə də ingilis dilinin tədrisində frazeologiya bölməsi xüsusi yer tutur. Onunla tanışlıq öyrənilən dil vahidlərinin əsas xassələri, onların linqvistik xüsusiyyətləri və nitqdəki fəaliyyəti, dilin frazeoloji zənginliyi haqqında bilikləri əhatə edir. Tədris zamanı frazeologiyanın öyrənilməsi məqsədi kimi dil bacarıqlarının formalaşdırılması əldə edilmiş linqvistik biliklərin möhkəmlənməsinə kömək edir.

Didaktika frazeologiyanın tədqiqi ilə sıx yaxınlıq təşkil edir. Dillər üçün Ümumi Avropa İstinad Çərçivəsinin (CEFR) fəaliyyət yönümlü yanaşmasında xüsusən özünü göstərən, hazırda dominant olan sosial-linqvistik cərəyandan fərqli olaraq, frazeodidaktika dil ünsiyyətində idiomatik ifadələrin istifadəsini tənzimləyən əsas dil strukturlarını və qanunauyğunluqlarını araşdırmağa çalışır.

Frazeoloji vahidin linqvistik mahiyyəti günümüzədək hərtərəfli tədqiq edilmişdir. Bu sahənin əsas çətinliklərinə ingilis dilində idiomatik ifadələrin anlaşılması zamanı rast gəlinir. Frazeodidaktika həmçinin, quruluşu və çoxölçülü fəaliyyəti (formal, semantik, sintaktik, diskursiv və s.) istənilən tipoloji yanaşmanı xüsusilə tədqiq edir. Həqiqətən, frazeoloji birləşmələrin çoxsaylı xüsusiyyətləri çox müxtəlif təsnifatlara və terminologiyaya səbəb olur. Beləliklə, biz formul ardıcıllıqlarından, təbiətindən asılı olmayaraq müxtəlif sabitlik dərəcələrinə malik seqmentləri təyin etmək üçün hazırlanmış ardıcıllıqları nəzərdən keçirəcəyik.

Lüğətşünaslıqda (Melçuk, 2013), əksinə, biz onların təbiətini və məruz qaldıqları semantik, leksik və sintaktik məhdudiyyətlərin növlərini nəzərə alırıq. Bu da diskursiv perspektiv danışıq rutinləri

(Koulmas, 1981), (Qrup de Fribur, 2012) və ya stereotipli nitq hərəkətləri (Kauffer, 2011) kimi terminlərin qəbuluna gətirib çıxardı.

**TƏDQİQAT METODU**

Frazeologizmlərin dəqiq təfsiri dilin öyrənilməsinin mühüm komponentidir, çünki bu ifadələr sözlərin hərfi şərhindən kənarda məna ifadə edir. Dil öyrənənlərin frazeologizmlərin mənasını deşifrə etməkdə uğurlarına onların tədris zamanı yanaşmaları və dil bilikləri əhəmiyyətli dərəcədə təsir göstərir.

Frazeologizmlərin effektiv şərhi dilin qrammatik strukturlarını, sintaksisini və lüğətini əhatə etməklə dərindən başa düşülməsini tələb edir. Bu cür biliklər dilin hərfi və məcazi mənalarını fərqləndirmək və ifadənin nəzərdə tutulan mənasını müəyyən edilməsində kontekstdən istifadə etmək üçün əsasdır.

Dilin tədrisinə müxtəlif yanaşmalar dil öyrənənlərin frazeologizmlərin təfsirində uğur qazanmasına mühüm təsir göstərir. Müəllimlər öyrənənlərə frazeologizmlərin istifadəsini tələb edən real həyat situasiyalarını təqdim edən tapşırıq əsaslı yanaşma tətbiq edə bilərlər. Alternativ olaraq, onlar öyrənənlərə frazeologizmlərin mənasını öyrətmək və onlara kontekstdə onlardan istifadə etmək imkanlarını təmin edən deduktiv yanaşmadan istifadə edə bilərlər.

Bu bacarıqların inkişafı davamlı təcrübə və müxtəlif dil formalarına məruz qalmağı tələb edir. Şagirdləri müxtəlif kontekstlərdə frazeologizmlərdən istifadə etməyə çağıran fəaliyyətlərə cəlb etmək vacibdir. Filmlər, kitablar və ana dili ingilis dili olan danışanlarla söhbətlər kimi orijinal mənbələrdən öyrənmək öyrənənlərə dili və frazeologiyalardan istifadəni daha dərindən başa düşməyə kömək edə bilər.

Frazeodidaktik yanaşmanın iki məqsədi var:

Birincisi, bu, yeni frazeoloji birləşmələri inteqrasiya etməklə, kəmiyyət baxımından tələbənin leksik biliyini inkişaf etdirməkdən ibarətdir. Başqa sözlə desək, söhbət həm qəbuledici, həm də məhsuldar olan lüğətə inteqrasiya edərək, onlara getdikcə daha çox yiyələnməyə kömək etməkdən gedir (Sikora, 2018). Lakin, bir tərəfdən, nə öyrənmə yolu üçün nəzərdə tutulan saatların sayı, nə də proqramların məzmunu buna istənilən səviyyədə imkan vermir.

Frazeoloji birləşmələrə layiq olduqları didaktik diqqət lazımdır (Teofan, 2013), (Tsedrik, 2018). Digər tərəfdən, onların çoxluğu və canlılığı - müxtəlif səbəblərdən bir çoxu gündəlik mübadilələrdə istifadə ounur və yox olur və bu da dil dərsində hətta əhəmiyyətli bir hissəsinin nəzərə alınmasını çətinləşdirir.

Beləliklə, ikinci frazeodidaktik məqsədi müəyyən etmək zərurəti yaranır: tələbəyə frazeoloji birləşmələri tərcümə etmək; ekvivalentini tapmaq; söz ehtiyatını zənginləşdirmək; öyrənilmişlərə inteqrasiya etmək; nitqdə əvvəllər naməlum olan, tez-tez təsadüfi olaraq hədəf dildə rastlaşdığı frazeoloji birləşmələrdən istifadə edə biləcəyi bacarıqların formalaşmasına kömək etmək.

Göründüyü kimi, ikinci məqsəd keyfiyyəti müəyyən edir.

Beləliklə, frazeoloji bacarıqlar dedikdə nəyi nəzərdə tuturuq?

Ümumiyyətlə, frazeoloji bacarıqlar tələbənin frazeoloji birləşmələrin mənasını anlamaq, semantik və formal xüsusiyyətləri müəyyən etmək, onu məhsuldar lüğətinə inteqrasiya etmək, diskursiv fəaliyyətini müəyyən etmək üçün bilik və malik olduğu bütün resurslardan düzgün istifadə etməyə yönələn bacarıq kimi müəyyən edilir.

Xarici dili effektiv şəkildə öyrətmək üçün həm tədris üsulları və texnikası, həm də dil nəzəriyyəsi haqqında hərtərəfli anlayışa malik olmaq vacibdir. İfadələri öyrədərkən mədəni yanaşma son dərəcə vacibdir, çünki bu, tələbələrə dilin nüanslarını nəzərdən keçirib onları qiymətləndirməyə imkan verir. Bundan əlavə, lüğətin və frazeologiyanın onun tərkib hissələrinin strukturu əsasında təşkili ingilis dili lüğətinin tədrisi zamanı mühüm linqvistik yanaşmadır.

Mədəni yanaşmanı mənimsəmək, tələbələrə ifadələrin istifadə edildiyi konteksti anlamağa kömək edə bilər və bununla da dili daha dərindən başa düşə bilər. Bundan əlavə, lüğət və frazeologiyanın struktur komponentlərinə görə bölünməsi tələbələrə nümunələri müəyyən etməyə və sözün və ya ifadənin mənasını daha tez qavramağa imkan verir.

Frazeoloji biliklər tədris zamanı həm kəmiyyət, həm də keyfiyyətcə inkişaf edərsə, frazeoloji birləşmələrin çoxluğu və müxtəlifliyi həmişə tələbələri onlara naməlum olan yeniləri ilə məşğul olmağa sövq edəcək.

Effektiv ünsiyyətin mühüm aspekti uyğun ifadələrdən istifadə etməkdir. Bununla belə, təkcə ifadələr və onların mənaları haqqında biliklərə sahib olmaq kifayət deyil. Söhbətlərə ifadələri effektiv şəkildə daxil etmək üçün frazeoloji öyrənmə strategiyalarını öyrənmək vacibdir. Bu strategiyalar frazeoloji bacarıqların inkişafında həlledici rol oynayır, istənilən kontekstdə ən uyğun frazeoloji birləşmələri inamla və bacarıqla yerləşdirməyə imkan verir. Frazeoloji öyrənmə strategiyalarının mənimsənilməsi ünsiyyət bacarıqlarını artırmaq istəyən hər kəs üçün vacibdir. Beləliklə, bu güclü frazeoloji öyrənmə strategiyalarını qavramaq və tətbiq etmək çox vacibdir.

Frazeoloji vahidlərin tədqiqi onların nitqdə işlədilməsi, frazeoloji vahidlərin mənasının şərhi, danışıq zamanı məqsədəuyğun istifadəsi ilə müşayiət olunmalıdır. Bu, həm də frazeologiya bölməsinin öyrənilməsinə həsr olunmuş ingilis dili dərslərində tələbələrdə bacarıqların inkişaf etdirilməsinə yönəlmiş mövqelərdən biridir. İngilis dilinin tədrisi zamanı frazeoloji vahidlər haqqında təsəvvür yaratmaq əsas məqsəddir. Bu məqsədə əsasən bir sıra vəzifə və tapşırıqları qeyd etmək lazımdır:

— söz və ifadənin oxşar və fərqli cəhətlərini göstərmək;

— sərbəst ifadə ilə müqayisə edərək frazeoloji vahidlərin konkret mənasını göstərmək;

— frazeologiyada sistemli və ardıcıl əlaqələr (sinonim, antonim) haqqında təsəvvür yaratmaq;

— frazeoloji lüğətlər haqqında anlayışı izah etmək. (Cumayeva, 2020)

Bir neçə sözdən ibarət idiomatik ifadələr olan frazeoloji birləşmələr dilin mənimsənilməsinin mühüm tərkib hissəsidir. Onlar tərcümə edilmiş və tərcümə olunmamış yanaşmalar da daxil olmaqla müxtəlif üsullarla effektiv şəkildə öyrənilə bilər.

Müxtəlif üsullardan biri olan tərcümə metodu frazeologizmləri tələbələrə təqdim etmək üçün ən effektiv hesab olunur. Bu yanaşma tələbələrə bu ifadələrin mənasını anlamağa və onları düzgün tərcümə etməyə imkan verir. Yazı və şərh tapşırıqları ilə məşğul olmaqla, tələbələr bu ifadələrin cümlələrdə kontekstini və istifadəsini təhlil edə bilirlər ki, bu da dil bacarıqlarının mənimsənilməsini asanlaşdırır və hədəf dilin incəliklərini daha dərindən dərk etməyə kömək edir.

Tərcümə metodundan istifadə edərək frazeologizmləri öyrənməyin faydaları çoxşaxəlidir. Bu üsul leksik materialın mənimsənilməsini asanlaşdırır, hədəf dilin qavranılmasını gücləndirir və mədəni kontekstə daha çox qiymət verməyə kömək edir. Tələbələr frazeologizmləri mənimsəməklə, əsas dil bacarıqları olan oxuma, yazma və danışma bacarıqlarını təkmilləşdirə bilərlər.

**NƏTİCƏ**

Universitetdə frazeologiya kimi mövzunun öyrənilməsi tələbələrdən daim təhlil etmək, müqayisə etmək və biliyin mənimsənilməsinin ən təsirli və rasional yollarını, şüurlu bacarıqların yaradılması yollarını, müstəqil düşünmə və idrak fəaliyyətini tapmaq bacarığını axtarmağı tələb edir. Gələcək müəllimlər əsl tədqiqatçı olmalıdırlar, onlar keçmişin metodik irsindən, müasir texnikanın nailiyyətlərindən yaradıcılıqla istifadə edərək təhlil etməyi, toplanmış təcrübəni ümumiləşdirməyi bacarmalıdırlar.

Nəticə etibarı ilə frazeoloji birləşmələrin mənimsənilməsi üçün zəruri olan strategiyaların, yəni öyrənməni təkmilləşdirmək üçün şüurlu şəkildə istifadə olunan prosedur və vasitələrin işlənib hazırlanması frazeodidaktikanın əsas məqsədlərindən biridir. Biz bilirik ki, hər bir dilin özünəməxsus frazeoloji vahidləri var və onlar məhz həmin dilə sahib olan xalqın adət-ənənələrinin və təbii ki, tarixi formalaşma prosesinin təsiri altında formalaşıb inkişaf edir. Nəticə olaraq, ingilis dilinin frazeoloji vahidlərinin strategiyalara nəzərən öyrədilməsi tələbəyə öz bilikləri üzərində işləməyə kömək edir, bununla da onların nitq bacarıqlarını daha da inkişaf etdirir və öyrəndikləri dili daha dərindən dərk edir. Üstəlik, bu, öyrənənləri daha çox öyrənməyə həvəsləndirir və onların kommunikativ bacarıqlarını təkmilləşdirməyə kömək edir.

Frazeoloji bacarıqların tərkib hissəsi olan strategiyalara daxildir:

• ifadənin təhlilindən, məlum dillərlə müqayisəsindən ibarət olan idrak strategiyaları (Oksford, 1990) ;

• lüğətdən (sadə və ya genişləndirilmiş) istifadə etmək, linqvistik ipuclarına / açar sözlərə əsaslanaraq təxmin etmək kimi ilk təmasın koqnitiv strategiyaları (ilkin idarəetmə strategiyaları) (Yonkigi, 2010) ;

• öyrəniləcək materialı tədqiq etmək, onun necə işlədiyini aşkar etməkdən ibarət olan metakoqnitiv strategiyalar (Oksford, 1990) ;

• təsnifata, assosiasiyalara, yəni artıq əldə edilmiş biliklərə münasibətdə əlaqələrin formalaşmasına və mövqeləşdirməyə, təsvirlərdən, səslərdən və s. istifadəyə əsaslanan mnemonik, yəni xatırladıcı strategiyalar (Oksford, 1990).

Xülasə, Frazeoloji birləşmələri öyrətmək üçün tərcümə metodundan istifadə etmək çox tövsiyə olunur. Bu, tələbələrin əsas dil bacarıqlarına yiyələnməsinə kömək edir, onların hədəf dili dərk etmələrini artırır və dilin incəliklərini daha dərindən dərk etmələrini təmin edir. Frazeologizmlərin düzgün şərhi dilin öyrənilməsi üçün mühüm əhəmiyyət kəsb edir və öyrənənlərin onları şərh etməkdə uğuru onların tədris zamanı yanaşmalarından və dil biliklərindən asılıdır. Səmərəli tədris yanaşmalarını qəbul etmək və tələbələri ardıcıl təcrübəyə cəlb etmək və müxtəlif dil formaları ilə tanış olmaq vacibdir.

**ƏDƏBİYYAT SİYAHISI**


1. Abel, Beate. (2003). English idioms in the first language and second language lexicon: a dual representation approach. Second Language Research 19(4). 329-358.
2. Boers, Frank. (2001). Remembering figurative idioms by hypothesizing about their origins, Prospect 16(3). 35-43.
3. Coulmas, Florian. (1981). Conversational Routine. La Haye: Mouton.
4. Groupe de Fribourg. (2012). Grammaire de la période. Bern: Peter Lang.
5. Kauffer, Maurice. (2011). Actes de langage stéréotypés en allemand et en français. Pour une redéfinition du stéréotype grâce à la phraséologie. Nouveaux Cahiers d'Allemand. 35-53
6. Mel'čuk, Igor A. (2013). Tout ce que nous voulions savoir sur les phrasèmes, mais... Cahiers de Lexicologie 102(1): 129-149.
7. Oxford, Rebecca L. (1990). Language Learning Strategies - What Every Teacher Should Know.New York: Newbury House Publishers.
8. Théophanous, Olga. (2013). Le traitement de la préconstruction lexicale dans un corpus de méthodes de français langue étrangère. Garcia-Debanc, C. C. Masseron, Ch.Ronveaux (ed). Enseigner le lexique. 173-192. Namur : Presses Universitaires de Namur
9. Tsedryk, Alexandra. (2018). Comment ne pas tomber dans les pommes en étudiant le français : l'apprentissage d'expressions idiomatiques en L2 aux niveaux intermédiaire et avancé. (Paper presented at the 32e Congrès Mondial du Conseil International d'Études Francophones. Université de La Rochelle, France, 4-10 June 2018.)
10. Yongqi, Gu. (2010). Learning Strategies for Vocabulary Development. Reflections on English Language Teaching 9(2). 105-118.
11. Jumayeva S.M. (2020). Methods of using phraseology in B2 levels. "Molodoy uchony - "Mezhdunarodnyy nauchnyy zhurnal" №17 (307) / 2020.
12. Sikora, K., & Roelofs, A. (2018). Switching between spoken language-production tasks: The role of attentional inhibition and enhancement. Language, Cognition and Neuroscience, 33(7), 912–922.


# MÜXTƏLIF IXTISASLARDA OXUYAN 18-20 YAŞLI TƏLƏBƏLƏRDƏ DEPRESSIYA GÖSTƏRICISININ MÜQAYISƏLI TƏDQIQI


**SƏKİNƏ NAĞIYEVA**
Qərbi Kaspi Universiteti
Psixologiya Fakultəsi
*skinnagiyeva328@gmail.com*
BAKI, AZƏRBAYCAN
Elmi rəhbər: b.ü.f.d. Natəvan Kərəmova


**XÜLASƏ**


Depressiya ən geniş yayılmış psixi pozuntu olub, davamlı aşağı əhval-ruhiyyənin olması və idrak prosesinin zəifləməsi ilə xarakterizə olunur. Hər yaşda və hər bir fərddə yarana bilən depressiya düşüncə, davranış və duyğularımıza təsir göstərir. Bununla da depressiya digər koqnitiv davranışlrımıza təsir göstərir. Bütün fərdlər üçün depressiv simptomlar sosial mühitdə, işdə və evdə təşviş və narahatlıqla nəticələnə bilər. Depressiyanın uzun müddət davam etməsi sadəcə narahatlıqla

nəticələnməyib fərdin özünə qəsd etməsinə və intihar etməsinə səbəb ola bilir. İmtahan zamanı tələbələr arasında sıxlıqla depressiv hallar müşahidə olunur. Aparılan çoxsaylı araşdırmalar nəticəsində tələbələrdə yaranan depressiyanın akademik fəaliyyətlərinə əhəmiyyətli dərəcədə təsir göstərdiyi qeyd edilmişdir. Bu isə onlarda akademik uğur və nəticənin zəifləməsinə səbəb olmuşdur. Depressiv simptomların sayının artması nəticəsində tələbələr arasında özünə inamın zəifləməsi, bədbinlik hissinin artması, suisidə yönələn düşüncə və davranışların olması, diqqəti istiqamətlənməsi və mərkəzləşməsi arasındakı əlaqənin pozulması kimi proseslərin yaranmasına təkan verir. Tədqiqatı aparmaqda əsas məqsədimiz tələbələrdə yaranan depressiya və onun səviyyələrini tədqiq etməkdir. Tədqiqat Qərbi Kaspi Universitetinin "Science Group" tədqiqatçılarının iştirakı ilə aparılmışdır. Aparılan tədqiqat müxtəlif ixtisaslarda təhsil alan 1-ci və 4-cü kurs 17-20 yaşlı bakalavr tələbələri arasında keçirilmişdir. Tələbələrdə yaranan depressiyanı tədqiq etmək məqsədi ilə psixofizioloji testlərdən istifadə edərək depressiyanın hansı səviyyədə olduğu müəyyən olunmuşdur. Təqdim olunan məqalə tədqiqatın bir hissəsidir. Tədqiqat adi dərs günlərinin birində keçirilmişdir. Aparılan tədqiqat bunu göstərir ki, istər 1-ci kurslarda, istərsə də 4-cü kurslarda təhsil alan bakalavr tələbələrində nevrotik depressiv hal müşahidə olunmayıb. Bu isə norma qəbul edilir.

**AÇAR SÖZLƏR:** Depressiya, 1-ci və 4-cü kurs tələbələri, həyəcan, imtahan stressi, Zung şkalası.

## GIRIŞ

Tələbələrin psixi sağlamlığı bütün dünyada narahatlıq doğurur. Qlobal miqyasda tələbələrdə depressiya, narahatlıq və stress əlamətləri yüksəkdir . Bunlar insan psixologiyasına mənfi təsir göstərə bilər. İmtahan universitetə qəbul imtahanına hazırlaşan tələbələr üçün narahatlıq mənbəyi ola bilər. Türkiyədə tələbələr arasında 48,1 faizində olan universitetə qəbul imtahanı narahatlığının yüksək yayılması aşkar edilmişdir (Bilgel, Bayram 2008). İmtahanlar, xüsusən də gələcək perspektivlər və peşəkar yollar üçün meyar rolunu oynadıqda, stressin əsas səbəbi ola bilər. İmtahanla bağlı narahatlıq və stress tələbənin akademik performansına eləcə də fiziki sağlamlığına və inkişafına, həyat keyfiyyətinə mənfi təsir göstərir. Bakalavrların əhəmiyyətli bir hissəsi depressiyaya düşə və psixi sağlamlıq yardımına ehtiyac duya bilər. Bunun zərurəti tapıntılarla da təsdiqlənir. Depressiyanın daha yaxşı tanınmasının daha yaxşı depressiya savadlılığı və stiqmanın aşağı səviyyələri ilə əlaqəli olduğunu göstərir (C.Mallen, L.Zhang 2008). Bu nəticələrin çoxu ilə əlaqədar olaraq, bakalavrların problemi heç olmasa "ruhi xəstəlik" kimi tanımaq bacarığı tövsiyə olunur. Baxmayaraq ki, bakalavrlar kömək variantları haqqında məlumatlı ola bilərlər, lakin, onlar peşəkar yardım axtarmaqdan çəkinə və bunun əvəzinə qeyri-rəsmi sosial şəbəkələrdən yardım axtara bilərlər. Buna görə də, həm bakalavrların meyli peşəkar yardım axtarmaq və qeyri-rəsmi yardım təminatçılarının psixi sağlamlıq savadlılığı yaxşılaşdırılmalıdır (S.Mottram, 2008). Bakalavrların depressiyanın "xəstəlik" deyil, "zəiflik" olduğuna inanmaları üçün peşəkar yardımı nəzərdən keçirmələrinə mane ola biləcəyi üçün problem həll edilməlidir. Stiqmanın azaldılması təşəbbüsləri eyni zamanda stiqmanın müxtəlif ölçüləri problemlərin həllini təmin etməlidir(L.Zhang 2008).

Depressiyanın yaranmasının bir sıra amilləri ola bilər. Bu amillər iki geniş kateqoriyaya - biologiya və psixologiyaya ayrılır. Bir çox bioloji və psixoloji amillər depressiya ilə qarşılıqlı əlaqədədir(Petersen, Louw, Dumont, 2009). Baxmayaraq ki, xüsusi amillərin qarşılıqlı təsiri insandan insana fərqli ola bilər. Bioloji amillər- depressiya üzərinə müəyyən təsir göstərə biləcək bioloji amillər daxildir: genlər, hormonlar və beyin kimyəvi maddələri. Genetik faktorlar- depressiya tez-tez ailələrdə olur, bu da bunu göstərir ki, fərdlər onları həssas edən genləri miras ala bilər. Baxmayaraq ki, bir çox insan bu genləri miras ala bilər, lakin, onların çoxu heç vaxt əziyyət çəkə bilməz. Hormonlar- tədqiqatlar müəyyən etdi ki, bəzi hormonlar vardır ki, depressiyada, depressiv epizoddan əvvəl və depressiv epizod zamanı baş verən dəyişikliklər onların çoxu baş verən dəyişikliklər beyinə keçir və beynin müəyyən hissələri təsirlənir(M.Pickard, J.Cohen, L.Bates 2000). Bu və bunun kimi halların qarşının alınması məqsədilə dərman qəbulu tövsiyə olunur. Dərman müalicəsi bu prosesin daha rahat keçməsinə təsirli ola bilər(T.Phan, Larimer, O.Carter 2017)..

Beyindəki sinir hüceyrələri ilə əlaqə quran bioloji fəal maddələrə neyromediatorlar deyilir. Ədəbiyyatdan məlumdur ki, depressiya zamanı hormonal aktivlik azalır. Bu neyromediatorlardan birinin və ya bir neçəsinin sistemləri və beynin müəyyən hissələrini qıcıqlandıra bilər. Neyromediatorların səviyyəsinin aşağı enməsi ünsiyyətin azalmasına səbəb olur. Nəticə etibarilə də

neyromediatorların səviyyəsinin azalması insanda yuxu, iştah, cinsi həvəs, əhval-ruhiyyə kimi funksiyaların tənzimlənməsinin zəifləməsinə və azalmasına səbəb olur (M.Pickard, L.Bates 2000). Bir çox antidepresant dərmanlar beyindəki neyromediatorların ifrazını artırır. Bu isə sadalanan funksiyaların işini məhsuldar görməsini təmin edir. Baxmayaraq ki, sahib olduğumuz genlər haqqında çox şey edə bilmərik. Ancaq, irsi olaraq, edə biləcəyimiz bir sıra şeylər var (J.Cohen, A.Eacker 2015). Buna depressiyaya qalib gəlmək və ya depressiyada olmamıza mane olmağı aid edə bilərik. Həkiminiz dərman təklif etmiş ola bilər, xüsusilə ağır depressiyada dərman qəbulu depressiv halların azalmasına və pasientin psixoloji və bioloji cəhətdən daha gümrak hiss etməsinə yardım olur. Yalnız kimyəvi müalicə üsulu olan dərman qəbulundan fərqli olaraq paralel şəkildə psixoloji yardımın edilməsi də mühüm əhəmiyyət kəsb edir. Bəzi hallarda xüsusilə də yüngül depressiyadan əziyyət çəkənlər dərman qəbul etməyə ehtiyac duymur. Bu və bunun kimi hallarda insanların müalicə üsulu psixoloji cəhətdən terapiyalar vasitəsilə aparılır. Depressiya mövzusu, dünyada artaraq yayılması səbəbindən psixi sağlamlıq mütəxəssisləri üçün getdikcə daha çox əhəmiyyət kəsb edir. ÜST-nin son statistikası dünyada 300 milyondan çox insanın depressiyada olduğunu və 2005-2015-ci illər arasında depressiya ilə yaşayan insanların sayında 18%-dən çox artım olduğunu təxmin edir (Behere, Kumar, Behere, 2017) . Cənubi Afrikada 2002-2004-cü illər arasında Cənubi Afrika Stress və Sağlamlıq Araşdırması (Tomlinson, Grimsrud, Stein, Williams, Myer, 2009) tərəfindən ömür boyu əsas depressiv epizodların yayılmasının 9,7% olduğu aşkar edilmişdir. Bu faiz bəzilərindən aşağı olsa da, ÜST-nin Ümumdünya Psixi Sağlamlıq 2000 təşəbbüsünün birinci dalğasında iştirak etmiş digər ölkələrin əksəriyyətindən hələ də yüksək idi (Tomlinson et al., 2009). Bu, Cənubi Afrikalıların depressiyasını dəstəkləyən amillər və kontekstlər barədə yerli psixi sağlamlıq mütəxəssisləri tərəfindən əlavə araşdırmaya ehtiyac olduğunu göstərir. Müxtəlif tədqiqatların depressiyanın inkişafı üçün xüsusi həssaslığı qeyd etdiyi xüsusi kontekstlərdən biri universitet məkanlarındadır (Geisner, Kirk, Mittmann, Kilmer, Larimer, 2015; Young, Campbell, 2013; Jung, Hecht, Wadsworth, 2007). Cənubi Afrika Depressiya və Həyəcan Qrupu (2018) bildirir ki, yerli universitet tələbələrinin təxminən 12%-i orta və ya şiddətli depressiya əlamətləri yaşayır. Beləliklə, bir çoxları tərəfindən qaldırılan sual, tələbələri depressiyaya salan hansı amillərdir? Əvvəlki tapıntılar bu suala cavab verməyə yönəlmiş müxtəlif kəsişən amillərə işarə etdi (Petersen, Louw, Dumont, 2009; Sennett, Finchilescu Gibson Strauss, 2003). Məsələn, Young və Campbell (2013) Cənubi Afrika universitetində tələbə rifahını Britaniya universitetindəki ilə müqayisə edən məqalələrində universitetin bir çox tələbələr üçün psixoloji cəhətdən sıxıntılı olduğunu aşkar etdilər. Bu araşdırmanın Cənubi Afrika nümunəsi daxilində bakalavr tələbələrinin, ola bilsin, universitet həyatına uyğunlaşmaqda çətinliklərlə əlaqədar olaraq, aspirantlara nisbətən daha çox çətinlik çəkdikləri göstərildi. Bundan əlavə, qaradərili tələbələrin post-aparteid akademik məkanlarında mövcud olan bərabərsizliklər və bunun nəticəsində unikal kəsişmə problemləri ilə üzləşməsi nəticəsində daha yüksək səviyyədə sıxıntı yaşadıqları aşkar edilmişdir.Bu xüsusi kəsişmə amilləri ilə əlaqədar olaraq, Jung (2007) beynəlxalq tələbələrin zehni rifahında şəxsiyyətin rolunu araşdırır. Nəticələr göstərir ki, mədəni fərqliliklər tələbələrin mədəni mənliklərinin başa düşülmədiyi və ya tam ifadə oluna bilmədiyi məkanlarda özünü ifadə etmələrinin məhdudlaşdırılmasına gətirib çıxara bilər (Qeyd edək ki, "kimlik" və "mən" terminləri bu məqalədə bir-birini əvəz edir). Bu tapıntı həm də qaradərili tələbələrin tarixən ağdərili universitetlərdə oxuyarkən bir-birinə uyğun gəlməyən şəxsiyyətlərinə aid edilir. Bir çox Cənubi Afrikalı qaradərili tələbələr, həmçinin zəif təhsilə hazırlaşmaq, yeni, potensial özgəninkiləşdirən mühitlərə uyğunlaşmaq, daha az davamlı sosial dəstək və maliyyə stressləri kimi digər stress faktorları arasında nail olmaq üçün ailələrindən yüksək gözləntilərlə üzləşirlər (Young, Campbell, 2013; Petersen, Louw, Dumont, 2009).

Psixi proseslərdən biri olan depressiya zaman-zaman dünya miqyasında diqqətləri öz üzərinə çəkmişdir. Depressiya, 2017-ci ildə qlobal miqyasda 300 milyondan çox insana təsir etdiyi üçün, ictimai səhiyyə sektorunun daha çox dünya miqyasında diqqət tələb edən əhəmiyyətli psixi sağlamlıq xəstəliyidir. Bundan əlavə, depressiya dünya miqyasında əlilliyə ən mühüm töhfə verənlərdən biridir (təxminən 7,5% 2015-ci ildə) və hər il təxminən 800.000 intihara əhəmiyyətli töhfə verir (J.Cohen, A.Eacker 2015).. Depressiya adətən iki həftə və ya daha çox müddət ərzində əhval-ruhiyyədə, koqnitiv və fiziki simptomlarda tez-tez dəyişikliklərlə tanınan ümumi və müalicə oluna bilən xəstəlikdir (T.Phan, O.Carter 2017). Depressiyanın əsas simptomları müsbət qarşılıqlı əlaqənin itirilməsi, yuxu pozğunluğu, özünə qayğının aşağı olması, konsentrasiyanın aşağı olması, narahatlıq və gündəlik həyata və yeni təcrübələrə marağın olmamasıdır. Depressiyaya klinik olaraq ənənəvi diaqnostik

müsahibələr vasitəsilə diaqnoz qoymaq olar, lakin depressiyanın yayılmasını ölçən tədqiqatlar zamanı tədqiqatçılar adətən təsdiqlənmiş öz-özünə hesabat skrininq alətindən istifadə edirlər (Behere, Kumar, Behere, 2017). Depressiyanın yayılması cins, yaş, ətraf mühit və şəxsi xarakter kimi sosial-demoqrafik amillərdən təsirlənir. O, həmçinin şəxsi gəlir və sağlamlıqla bağlı davranışlarla da bilavasitə asılıdır. Depressiya həm tələbə populyasiyasında çox yayılmışdır, həm də çox təsirlidir. Depressiya haqqında daha ətraflı öyrənilməsi üçün aparılan tədqiqatlar bunula da kifayətlnmir. PhD məqsədi universitet tələbələrində depressiyanın təsirini azaltmaq üçün bir müdaxilə kimi internet əsaslı ruminasiyaya əsaslanan koqnitiv-davranışçı terapiyanı (i-RFCBT) qiymətləndirmək idi. Müdaxilə əvvəlcə universitetin Sağlamlıq xidmətində müalicə olaraq həyata keçirildi. Müalicədən istifadənin və klinik nəticələrin auditi (N = 82) müdaxilənin kəskin depresif və narahat simptomları əhəmiyyətli dərəcədə azaldığını aşkar etdi. Bir hal seriyası alt nümunəsində (N = 26) klinik nəticələrdə irəliləyişlər, eləcə də fərziyyə edilən dəyişiklik mexanizminə uyğun olaraq ruminasiyada əhəmiyyətli azalmalar oldu. Kəskin müalicə əhali daxilində depressiyanın xəstəlik yükünə məhdud təsir göstərir (A.Zigmond, R.Snaith 1983). Qarşısının alınmasına diqqətin artırılması prioritet kimi müəyyən edilir. i-RFCBT-nin profilaktik müdaxilə kimi məqbulluğunu araşdırmaq üçün keyfiyyətli tədqiqat aparılmışdır. Müdaxilənin məqbul olduğunu müəyyən etdikdən sonra, RESPOND randomizə nəzarətli sınaq (N = 235) idarə olunan i-RFCBT-nin yüksək fikirləşmə və narahatlığı olan Böyük Britaniya bakalavrlarında depressiya hallarının qarşısının alınmasında effektiv olub-olmadığını yoxladı. Sınaq müəyyən etdi ki, idarə olunan i-RFCBT 12 aylıq təqib dövrü ərzində əsas depressiya epizodunun (MDE) tezliyini adi qayğıya nisbətən 34% azaldır, baxmayaraq ki, bu fərq əhəmiyyətli deyildi (S.Bacchi, J.Licinio 2015). İlkin stress müdaxilə effektinin əhəmiyyətli moderatoru idi, belə ki, daha yüksək stress səviyyələri olan iştirakçılar adi qayğıya nisbətən MDE hallarının azaldılmasında i-RFCBT-nin əhəmiyyətli faydasını yaşadılar. Qısa və orta müddətli yaxşılaşmalar da narahatlıq, ruminasiya və depressiya simptomlarında tapıldı. Rəhbər olunan müdaxilələr miqyaslılıq baxımından məhdud olduğundan, idarə olunmayan i-RFCBT-nin məqbulluğunu yoxlamaq və təsir ölçülərini qiymətləndirmək üçün RESPOND sınağına əlavə, kvazi faza-II pilot texniki-iqtisadi əsaslandırma bölməsi daxil edilmişdir. Rəhbər olunmayan i-RFCBT üçün təsir nümunəsi idarə olunan i-RFCBT ilə oxşar idi. Tezis nəticələrinin klinik nəticələri müzakirə olunur(T.Phan, O.Carter 2017).

Depressiya riski ilə bağlı aparılan çoxsaylı araşdırmalar həm idrak, həm də genetik zəiflik faktorlarının əhəmiyyətini vurğulayır. Bu tədqiqat iş yaddaşı tutumunun, BDNF (Brain Derived Neurotropic Factor- Beyindən qaynaqlanan neyropatik amil) Val66Met polimorfizminin və onların qarşılıqlı təsirinin universitetə keçid zamanı depressiya əlamətlərində dəyişiklikləri proqnozlaşdırıb-proqnozlaşdırmasının ilk araşdırmasını təmin etmişdir (Fisher, Hood 1987). Semestrin əvvəlində tələbələr həm neytral, həm də mənfi yayındırıcıların mövcudluğunda iş yaddaşının imkanlarını qiymətləndirmək üçün depressiv simptomların öz hesabatını və oxu müddəti tapşırığının dəyişdirilmiş versiyasını tamamladılar (Clarke, MacLeod, Shirazee 2008). Tam qan BDNF Val66Met polimorfizmi üçün genotiplənmişdir. Tələbələr semestrin sonunda özlərinə hesabat vermək üçün əlavə sorğu vərəqələrini doldurmaq üçün qayıtdılar. Nə iş yaddaşı tutumu, nə də BDNF Val66Met polimorfizmi depressiv simptomların müstəqil olaraq və ya özünün bildirdiyi semestr çətinliyi ilə qarşılıqlı əlaqədə dəyişikliyi proqnozlaşdırmırdı (Osinsky, 2012). Bununla belə, BDNF Val66Met polimorfizmi iş yaddaşı tutumu ilə simptom dəyişikliyi arasındakı əlaqəni idarə etdi. Görüşmüş daşıyıcılar arasında mənfi, lakin neytral olmayan diqqəti yayındıranların mövcudluğunda iş yaddaşının aşağı tutumu semestr ərzində depressiya əlamətlərinin artması ilə əlaqələndirildi (Benas, 2009). Val/val qrupu üçün işləyən yaddaş tutumu simptomun dəyişməsini proqnozlaşdırmırdı. Bu tapıntılar depressiyanın bioloji və koqnitiv modellərinə birbaşa töhfə verir və depressiya riskini araşdırarkən Gen × İdrak qarşılıqlı təsirlərinin araşdırılmasının vacibliyini vurğulayır (Karg, Burmeister, Shedden 2011).

Günümüzün aktual mövzusu olan depressiya ilə bağlı çoxsaylı araşdırmalar aparılmışdır. Amma hələ də cavabsız suallar qalmaqdadır. Qeyd edilənləri nəzərə alaraq, apardığımız tədqiqatlarda müxtəlif kurslarda oxuyan tələbələrin depressiya göstəriciləri tədqiq olunmuş və müqayisəli təhlil edilmişdir.

**TƏDQİQAT METODU**

Tədqiqatlar Qərbi Kaspi Universitetində təhsil alan 17-21 yaşlı 1-ci və 4-cü kurs bakalavr tələbələri arasında keçirilmişdir. Tədqiqatımız 3 mərhələdə: adi dərs günündə, imtahandan əvvəl və imtahandan sonra aparılmışdır. Tədqiqatı 3 müxtəlif mərhələdə aparmaqda əsas məqsədimiz əldə

etdiyimiz nəticələrin maksimum dərəcədə doğru olmasını və müqayisəli təhlili təmin etməkdir. Təqdim olunan məqalədə apardığılan tədqiqata əsasən 1-ci və 4-cü kursda təhsil alan bakalavr tələbələri 4 profil üzrə təhsil alırlar: Təbiət, Humanitar, Dəqiq və İqtisadiyyat. Tədqiqatın müxtəlif profillərdə 1-ci və 4-cü kurslarda ayrı-ayrılıqda aparılmağında əsas məqsəd depressiya səviyyəsinin ixtisaslar arasındakı fərqini qeyd etməkdir.

Depressiya səviyyəsini tədqiq etmək üçün depressiya göstəricisi olan Zung şkalasından istifadə etmişik.Uilyam Zanq (William W.K. Zung) tərəfindən yaradılan buu cədvəl depressiyanın diaqnostik kriteriləri və eyni zamanda depressiv pozuntusu olan xəstələr arasında keçirilən sorğular əsasında tərtib edilmişdir. Depressiyanın məhz ağırlıq dərəcəsi isə xəstənin öz-özünü qiymətləndirilməsi əsasında müəyyən edilir. Cədvəl 20 bənddən ibarətdir. Müayinə edilən şəxs hər bir bəndin suallarına cavab verərək "nadir hallarda", "arabir", "tez-tez" və ya "əksər hallarda" cavablardan birini seçir. Müayinənin nəticələri təhlil edilərkən bir neçə amil qiymətləndirilir. Bu faktorlara aşağıdakı simptom qrupları daxildir: ümumi somatik simptomlar, spesifik somatik simptomlar, psixomotor pozuntu simptomları, suisidal tendensiyalar, qıcıqlılıq və qətiyyətsizlik, daxili boşluq hissi, əhvali-ruhiyyənin pozulması. Depressiyanın kliniki diaqnostikası və depressiv pozuntuların kliniki dinamikasının müşahidəsi ilə yanaşı ZDRS (Zung Self-Rating Depression Scale) cədvəlindən həmçinin epidemioloji tədqiqatlarda, antidepressantların və digər dərmanların kliniki sınaqlarında istifadə edilir. Cədvəlin validliyi kliniki sınaqlarla təsdiq olunub. ZDRS cədvəlinin validliyi digər kliniki cədvəllərlə, o cümlədən Hamilton cədvəli və Bekin sorğu vərəqəsi ilə müqayisədə təsdiq olunub. Cədvəlin həssaslığı müxtəlif qrup depressiv pozuntusu olan xəstələrin və belə pozuntusu olmayan şəxslərin arasında sınaqdan keçirilmişdir.Əvvəlcə cədvəli doldurulmazdan öncə müayinə edilən şəxs cədvəlin istifadə qaydası ilə tanış edilir. Cədvəl müayinə edilən şəxs tərəfindən müstəqil şəkildə doldurulur. Cədvəl doldurulduğu zaman mütəxəssis bu prosesə müdaxilə etmir. Cədvəlin tam doldurulması prosesi bir neçə dəqiqə çəkir. ZDRS cədvəlinin 20 bəndinin hər birinə cavab verilməlidir. Alınan cavablar qiymətləndirilərək ümumi bal hesablanır.

ZDRS cədvəli üzrə balların hesablanması: Zanqın özünüqiymətləndirmə depressiya cədvəlinin 1, 3, 4, 7, 8, 9, 10, 13, 15 və 19-cu bəndlərinə verilən cavablar aşağıdakı kimi qiymətləndirilir: "nadir hallarda" – 1; "arabir" – 2; "tez-tez" – 3; "əksər hallarda" – 4. Cədvəlin 2, 5, 6, 11, 12, 14, 16, 17, 18 və 20-ci bəndlərinə verilən cavablar aşağıdakı kimi qiymətləndirilir: "nadir hallarda" – 4; "arabir" – 3; "tez-tez" – 2; "əksər hallarda" – 1.

ZDRS cədvəlində ümumi balın qiymətləndirilməsi-20-49 – Norma; 50-59 – Yüngül dərəcəli depressiv pozuntu ; 0-69 – Orta ağır dərəcəli depressiv pozuntu; 70-80 – Ağır dərəcəli depressiv pozuntu.

**TƏDQİQATLARIN NƏTİCƏLƏRİ.**

Tədqiqatlar zamanı 1-ci kurs tələbələridə maraqlı faktlar əldə edilmişdir. Təbiət elmlərində təhsil alan 1-ci kurs tələbələrində depressiya göstəricisi adi dərs günündə 28 bal, imtahandan əvvəl 36 bal, imtahandan sonra 34 bal olmuşdur. Humanitar profildə təhsil alan 1-ci kurs tələbələrində depressiya göstəricisi adi dərs günündə 32 bal, imtahandan əvvəl 35 bal, imtahandan sonra 37 bal olması müəyyən edilmişdir. Dəqiq elmlərdə təhsil alan 1-ci kurs tələbələrində depressiya göstəricisi adi dərs günündə 34 bal, imtahandan əvvəl 36 bal, imtahandan sonra 37,5 bala bərabər olmuşdur. İqtisadiyyat profilində təhsil alan 1-ci kurs tələbələrin depressiya göstəricisi isə adi dərs günündə 31,5 bal, imtahan ərəfəsində 33 bal, imtahandan sonra 36,3 bal səviyyəsində müəyyən edilmişdir (Şəkil 1).




**Şəkil 1.** Müxtəlif profilllər üzrə təhsil alan 1-ci kurs tələbələrində depressiya göstəricisinin nəticələri

4-cü kurs tələbələrində fərqli nəticələr əldə edilmişdir. Belə ki, təbiət elmlərində təhsil alan 4-cü kurs tələbələrində depressiya göstəricisi adi dərs günündə 41 bal, imtahandan əvvəl 39 bal, imtahandan sonra 40,5 bal olmuşdur. Humanitar profildə təhsil alan 4-cü kurs tələbələrində depressiya göstəricisi adi dərs günündə 40,2 bal, imtahan ərəfəsində 40,1 bal, imtahandan sonra 42,3 bal olması müəyyən edilmişdir. Dəqiq elmlərdə təhsil alan 4-cü kurs tələbələrində depressiya göstəricisi adi dərs günündə 36,1 bal, imtahandan əvvəl 38.3 bal, imtahandan sonra 39 bal qeyd edilmişdir. İqtisadiyyat profilində təhsil alan 4-cü kurs tələbələrinin depressiya göstəricisi isə adi dərs günündə 40 bal, imtahandan əvvəl 41,2 bal, imtahandan sonra 40,5 bal olması müəyyən edilmişdir ( Şəkil 2).




**Şəkil 2.** Müxtəlif profillər üzrə təhsil alan 4-cü kurs tələbələrində depressiya göstəricisinin nəticələri.

Beləliklə aldığımız nəticələr onu göstərdi ki, tədqiq olunan tələbələrin heç birində həqiqi depressiya səviyyəsi yoxdur. Yəni, bütün tədqiq olunan tələbələrdə aldığımız nəticələr 50 baldan aşağı olmuşdur. Bu göstəricilər tələbələrin praktiki sağlam olduğunu göstərir. Praktiki sağlam insanlar isə düzgün qavrayır və yaranmış situasiyanı düzgün emosional dəyərləndirdiyi üçün depressiya göstəricisi çox yüksək səviyyəyə qalxmayıb. Depressiyanın norma hüdudunda olması tələbələrin təhsil aldığı ixtisasdan asılı olmamışdır. Eyni zamanda depressiyanın olmaması yüksək müvəffəqiyyət göstəricilərinin əldə edilməsinə və gələcəkdə yüksək biliyə malik kadrların yetişdirilməsinə zəmanət verir.

## ƏDƏBİYYAT SİYAHISI

1. Bayram N., Bilgel N. The prevalence and socio-demographic correlations of depression, anxiety and stress among a group of university students. Soc Psychiatry Psychiatr Epidemiol. 2008, 667–672.

2. Duman R.S. Neuronal damage and protection in the pathophysiology and treatment of psychiatric illness: stress and depression. Dialogues in Clinical Neurosciences. 2009, pp. 239–255.

3. Gatt J.M., Nemeroff C.B., Dobson-Stone C., Paul R.H., Bryant R.A., Schofield P.R., Williams L.M. Interactions between BDNF Val66Met polymorphism and early life stress predict brain and arousal pathways to syndromal depression and anxiety. Molecular psychiatry. 2009, 681–695.

4. Karamova N.Y. The influence of emotional stress on the formation of cognitive processes in schoolchildren, depending on their level of mental development. Information and analytical journal "Actual problems of modern Science", No.4, volume 48, Moscow, 2009, pp. 274-278.

5. Kavakci O., Semiz M., Kartal A., Dikici A., Kugu N. Test anxiety prevalence and related variables in the students who are going to take the university entrance examination. Dusunen Adam. 2014, 301–307.

# TƏLƏBƏLƏRDƏ ÜMUMİ HƏYƏCAN VƏ DEPRESSİYA GÖSTƏRİCİLƏRİNİN TƏDQİQİ

**Ülkər Qənbərli**
Qərbi Kaspi Universiteti
Psixologiya Fakültəsi
*ulkerqenberli@icloud.com*
Bakı,Azərbaycan
Elmi rəhbər: b.ü.f.d Kərəmova Natəvan

**XÜLASƏ**

Hal-hazırda cəmiyyətimizdə ən çox yayılan psixoloji pozuntulardan biri də həyəcandır. Həyəcanın səbəbi tam müəyyən olunmasa da onun beyindəki bəzi bioloji aktiv maddələrin tənzimləmə pozulmasından yarandığı düşünülür. Bu bioloji aktiv maddələrə serotonin və dofamin aiddir. Xroniki həyəcan isə depressiyaya səbəb ola bilər. Depressiya gündəlik fəaliyyəti, münasibətləri və iş qabiliyyətini pozan sağlamlıq problemidir. Depressiya ilə əlaqəli bir çox yanaşmalar mövcuddur. Depressiya orqanizmdə bir çox dəyişikliyə səbəb ola bilər. Depressiya, geniş mənada kədərlənmə vəziyyətidir. Hər il dünyada təxminən 6% yetkin insanda depressiya olur. Depressiyanın dünya üzərində təxmini yayılma nisbəti 4,4% təşkil edir. Depressiya bir çox somatik və ya psixi xəstəliklərin nəticəsi kimi meydana çıxa bilər. Milli Psixi Sağlamlıq İnstitutuna görə, böyük depressiya insanın həyətdan həzz alma qabiliyyətini pozan və yatmaq, yemək, işləmək kimi gündəlik fəaliyyətlərə mane ola biləcək hisslərlə müşayiət olunur. Depressiya tələbələrə təsir göstərə bilən akademik çətinliklər və şəxsiyyətlərarası problemlərlə əlaqələndirilir. Həmçinin xroniki depressiyada var. Bu intihar riskinin artması ilə müşayiət olunur. Ayrı seçkiliyə məruz qalma və mədəni stress də depressiya üçün risk faktorlarıdır. Bundan başqa, nəsillər arası fərqlər, fərqli şəxsi dəyərlər də depressiyanın yaranmasına təsir göstərir. Bu məqalə Qərbi Kaspi Universitetinin "Science Group" tədqiqatçılarının iştirakı ilə hazırlanıb. Tədqiqatın əsas məqsədi ümumi həyəcan və depressiyanın tələbələrə necə təsir etdiyini aşkar etməkdir. Tədqiqat I kursda oxuyan 17-18 yaşlı tələbələr arasında aparılmışdır.

**AÇAR SÖZLƏR: Depressiya, stress, ümumi həyəcan, Zung şkalası, Teylor testi.**

## GİRİŞ

Həyəcan insanlarda hər hansı bir qorxu anında meydana çıxan güclü daxili sıxıntı hissidir. İmtahandan əvvəl, yeni məktəbə getdiyiniz ilk gün və ya qorxulu filmə baxdıqda, həyəcanlı olmağımız normaldır. Həyəcan həyatın bir hissəsi olsa da, bəzi insanlar bunu digərlərinə görə daha tez-tez yaşayırlar. Bu isə onların gündəlik həyat fəaliyyətində iştirakını çətinləşdirir ( Katie Kawa, 2020). Həyəcan pozuntusu hər yaşda, dində və iqtisadi vəziyyətdə olan insanda rast gəlinə bilər. Həyəcan pozuntusu ABŞ-da ən çox yayılmış psixi pozuntudur. Hər səkkiz yeniyetmədən birində həyəcan pozuntusuna rast gəlinir ( Allen R. Miller, 2008). Həyəcan pozuntusunun 6 növü var. Bunlardan biri də ümumi həyəcan pozuntusudur. Həyəcan pozuntusunun növlərinin bir çox simptomları üst-üstə düşür. Ümumi həyəcan pozuntusu termini ilk dəfə DSM-III nəşri ilə ortaya çıxıb ( American Psychiatric Association, 1980). Ümumi həyəcan pozuntusu ən çox rast gəlinən həyəcan pozuntusudur və bütün psixi pozuntular arasında ikinci ən çox rast gəlinən pozuntudur (Barrett, Oxman və Gerber, 1988). Ümumi həyəcan pozuntusunun inkişaf riski daha yüksək olduğu iki yaş aralığı var. İlk risk dövrü 11 yaşdır. Ümumi həyəcan pozuntusunun orta yetkinlik dövründə inkişaf etdiyi gec başlanğıc dövrüdə var ( Blazer, Hughes, George,1987; Brown, Barlow, Liebowitz,1994). Həyəcan qadınlarda kişilərə nisbətən daha çox yayılmışdır, lakin bu cinsi fərqlər yeniyetməlik dövrünə qədər ortaya çıxmır (Compton,2000; Cohen, 1993; Roberts, 2007). Hər il Avropa İttifaqında 60 milyondan çox insanda həyəcan pozuntusuna rast gəlinir və bu ən çox görünən psixiatrik narahatlığa gətirib çıxarır ( Wittchen, 2010; J.Eur.Coll, 2011). Ailə və genetik komponentlər həyəcan pozuntusu üçün ən geniş risk faktorlarından biridir. Həmçinin həyəcan pozuntusunun yaranmasında ətraf mühitində təsiri var ( Bartlett, A.A, Singh.R və Hunter,R.G. 2017). Ümumi həyəcan pozuntusu olan şəxslərin həyat keyfiyyətləri azalır. Həyəcan pozuntusundan əziyyət çəkən şəxslərdə daima qeyri-müəyyən həyəcan hissi və narahatlıq olur ( Dugas, Michel. J, 1961). Bu həyəcanın şiddəti bəzən o qədər çox olur ki,

insan gündəlik işləri ilə maraqlana bilmir, hətta ətraf aləmdən uzaqlaşmağa başlayır. Həyəcan pozuntusu olan şəxslər digər narahat şəxslərə görə gələcək hadisələr üçün daha çox narahat olurlar ( Dugas, Freeston, 1998). Boşanmış və subay olan şəxslərin çoxunda ümumi həyəcana rast gəlinir və onların illik gəlirləri də az olur ( Blazer, Hughes, George, Schwartz və Boyer, 1991; Hunt, Issakidis və Andrews, 2002). Bundan başqa onlar tez-tez peşəkar və şəxsi həyatlarından narazılıq edirlər ( Stein və Heimberg, 2004). Bunlara baxmayaraq, ümumi həyəcan pozuntusu nisbətən yüngül bir xəstəlik kimi qiymətləndirilimişdir (Dugas, Michel. J, 1961). Həyəcan pozuntusuna sahib olma qadınlarda 22-30%, kişilərdə isə 12-20% arasında dəyişir ( Kessler, 1994). Ümumi həyəcan pozuntusunun yaranması orqanizmdəki bioloji aktiv maddələrlə əlaqələndirilir. Beyində neyrotransmitter adlanan bioloji aktiv maddələrdən istifadə edərək, bir-biri ilə əlaqə saxlayan və neyron adlanan milyonlarla sinir hüceyrəsi var ( Allen R. Miller,2008). Bunlar bir neyrondan ayrılır və digər neyrondakı reseptorlara bağlanır. Əgər, hər hansı faktor bu prosesə mane olarsa, bu neyrotransmitterlər səviyyəsində tənzimləmə pozulmasının yaranmasına səbəb ola bilər. Neyrotransmitterlərin çox növü var, amma onlardan ikisi əhvalımızın tənzimlənməsində vacib rol oynayır. Bunlar serotonin və dopamindir ( Allen R. Miller,2008). Bioloji aktiv maddələrin tənzimləmə pozuntusu olduqda isə həyəcan yarana bilər. Həyəcan tez-tez başqa bir vəziyyətlə də əlaqələndirilir. Bu depressiyadır. Depressiya ən geniş yayılmış psixi pozuntulardan biridir. Digər emosional dəyişikliklərdən fərqli olaraq, depressiyada əhval-ruhiyyənin enməsi və digər emosional pozuntular xəstəlik fonunda olur və bir sıra müxtəlif səbəblərə görə meydana çıxır. 1960-cı ilin sonu və 1970-ci ilin əvvəllərində depressiyanın bioloji mənşəyi haqqında bir sıra fikirlər ortaya çıxmağa başladı. Bunlardan biri də depressiyanın amin hipotezi idi ( Baldesssarini, 1986). Aminlər limbik sistemdəki neyronlar arasında məlumat ötürülməsində mühüm rol oynayırlar. Depressiyanın amin fərziyyəsi bildirir ki, depressiyanı xarakterizə edən mənfi emosiyalar limbik sistemdə aminlərin tükənməsi nəticəsində yaranır ( Baldessarini, 1986). İnsanlar bəzən özlərini hüznlü və bədbəxt hiss edə bilərlər. İşindən ayrılmaq, yaxınını itirmək, müvəffəqiyyətli ola bilməmək hüznə gətirib çıxaran hadisələrdən bəziləridir, amma hər ruh düşkünlüyünə depressiya deyə bilmərik, əgər əlamətlər hər gün və 2 həftədən çox davam edirsə, bu depressiyadır. Hüzn normal həyatımızın bir parçasıdır, amma bu hüznün uzanması və qeyri-müəyyən səbəblə ortaya çıxması ruh sağlamlığı problemlərindən biridir və depressiya olaraq təyin olunur. Depressiya duyğuya, davranışa təsir edir, əgər müalicə olunmazsa, aylar, illər, həttda ömür boyu qala bilər. Depressiya hər yaşda görülə biləcək bir psixi xəstəlikdir, həmçinin hər bir fərddə rast gəlinə bilər. Araşdırmalar zamanı müəyyən olunmuşdur ki, Amerikada hər 6 nəfərdən biri orta və ya şiddətli depressiyadan əziyyət çəkir ( Eaton, Kessler, 1981). 2017-ci ildə ABŞ- da 18 yaş və daha böyük 17,3 milyon yetkinin həyatında heç olmasa bir dəfə böyük depressiv epizodun olduğu düşünülür ( NIMH, 2017). Böyük depressiv pozğunluq irsi bir sindromdur. Kişilər qadınlara nisbətən daha az risk altındadılar. Demək olar ki, qadınlar həyatları boyu həm orta, həm də ağır depressiyanı kişilərə nisbətən 2 dəfə daha çox yaşayırlar ( Nolen Hoeksema, 1987; Weissman, Klerman, 1977). Kişilərin qadınlara nisbətən daha az depressiyaya düşməsinə səbəb kimi kişilərin xarakterik xüsusiyyətlərini, alkoqol qəbul etməsini və emosiyalarını şiddətlə ifadə edə bilməsini misal göstərə bilərik. Qadınların isə bunları edə bilməməsi eyni stressə daha çox reaksiya verməsi ilə əlaqələndirilir. Uşaqlarda da depressiya görülə bilər, əgər müalicə edilməsə, bu proses uzana bilər, hətta yetkinlik yaşına qədər davam edə bilər ( Albert, Beck, 1975 və Kaplan, Hong, Weinhold, 1984). 1970-ci ilə qədər uşaqlarda depressiya nadir hallarda öyrənilirdi. Depressiyanın psixoanalitik nəzəriyyəsinin tərəfdarları iddia edirdilər ki, uşaqlar depressiyaya düşə bilməzlər, çünki depressiyaya səbəb olan proseslərlə məşğul olmaq üçün psixoloji cəhətdən çox yetişməyiblər ( Rie, 1966). Digərləri isə iddia edirdilər ki, əgər uşaqlar depressiyaya düşsələr, onlar böyüklərin əlamətlərini göstərməyəcəklər, əksinə, depressiyalarını aqressiv davranış, narahatlıq və ya çoxlu sayda qeyri-normativ davranışlardan bir ilə ifadə edəcəklər ( Kovacs, Beck, 1977). Son illərdə, 6 yaşdan kiçik uşaqlarda günahkarlıq, özünə nifrət, bədbinlik və kədər kimi yetkinlərdə rast gəlinən depressiya əlamətlərinin olduğu ortaya çıxmışdır ( Puig-Antich, 1986). Yeniyetməlik, gənclərin əksəriyyətinin özünü narahat hiss etdikləri və tez-tez depressiya yaşadığı bir dövr hesab olunur. Yeniyetmələr arasında intihar halları uşaqlarla müqayisədə olduqca yüksəkdir ( Nolen Hoeksema, 1988). Yetkinlərdə kilo itkisi depressiya ilə əlaqələndirilir, lakin uşaqlar və yeniyetmələrdə isə bu simptom bəzən gözlənilən çəki artımının olmaması kimi özünü göstərir ( Kenneth W. Merrel, 2008). Uşaqlarda və yeniyetmələrdə tez-tez depressiyanın 2 əlamətinə rast gəlinir. Bunlardan biri əsəbilikdir. Digəri isə fiziki simptomlardan şikayətlərdir. Bunlara mədə ağrısı, baş

ağrısı və s. aiddir ( Kenneth W.Merrel, 2008). Yuxu problemləri depressiyanın vacib əlaməti olması ilə yanaşı, həmçinin öz-özlüyündə də depressiya yarada bilən faktordur. Uzunmüddətli yuxusuzluq depressiyaya yol açа bilər. Bir çox təzyiqsalıcı dərmanlar, ürəklə bağlı dərmanlar, iltihabəleyhinə dərmanlar, antibiotiklər və s. depressiyaya səbəb ola bilər. Depressiya beyindəki hormonal dəyişikliklərlə əlaqələndirilir. Bir çox xəstəliklər kimi, depressiya xəstəliyinində səbəbi dəqiq bilinmir, amma müasir nəzəriyyələrə görə bunlardan ən önəmlisi beyində bəzi bioloji aktiv maddələrin miqdarının dəyişməsidir. Tədqiqatlar göstərir ki, depressiya və serotonin arasında mürəkkəb bir əlaqə var. Serotonin və depressiya arasındakı əlaqə ilk dəfə 1960-cı illərdə təklif edilmişdir ( Coppen. A, 1967). Serotonin daşıyıcısı protein serotonini sinapsdan çıxarır və bununla da sinapsda serotonin mövcudluğu azalır ( Kambeitz JP, 2015 və Meyer JH, 2007). Serotonin adlanan maddənin azalması nəticəsində insanda əhvalın pozulması, hətta qorxu, həyəcan daimi pis fikirlər də əmələ gələ bilər. Serotonin çatışmazlığının digər səbəblərindən biridə orqanizmin serotonin istehsal edib, onu effektiv şəkildə istifadə edə bilməməsidir. Serotonin maddəsinin azalmasından başqa depressiya xəstəliyinin yaranmasına səbəb başqa amillərdə ola bilər. Bəzi tədqiqatlar göstərir ki, triptofanın tükənməsi depressiya simptomlarının yenidən ortaya çıxmasına səbəb olur. Triptofanın tükənməsinə də səbəb antidepresan dərmanlardan istifadə olunmasıdır ( Delgado PL, J. Clin, 2006). İlkin depressiya diaqnozu qoyulmuş xəstələrin 50%-də digər psixiatrik pozğunluqlar qeydə alınmışdır ( J. Clin, 2001). Depressiyanın yaranması üçün əsas faktorlardan biri sosial-mühit amilləridir. Ən çox isə emosional gərginliklə xarakterizə olunan şəraitlərdir. Məsələn imtahan prosesi, tədris prosesində kollekvium və s. kimi prosesləri qeyd edə bilərik ki, həyəcanın yüksəlməsi və bəzən də depressiyanın əmələ gəlməsinə gətirib çıxara bilər. Qeyd edilənləri nəzərə alaraq, aparılan tədqiqatlarda həyəcan və depressiya göstəriciləri tədqiq olunmuş, nəticələrin tələbələrin akademik göstəricilərinə təsiri araşdırılmışdır.

**TƏDQİQAT METODU**

Tədqiqatlar I kursda oxuyan 17-18 yaşlı tələbələr arasında aparılmışdır. 3 mərhələdə testləşdirmə prosesi həyata keçirilmişdir: adi dərs günlərindən birində, imtahandan əvvəl və imtahandan sonra. Alınmış nəticələr statistik işlənmiş və qarfik təsvir edilmşdir.

Həyəcan səviyyəsinin ölçülməsi zamanı Teylor metodikasından istifadə olunur. Bu zaman testi işləyənin qarşısına sorğu vərəqi qoyulur. Sorğu vərəqi 50 ifadədən ibarət olur. Təlimata görə sınanan şəxs vərəqlərdə olan ifadələrlə razı olub-olmamasından asılı olaraq, onları sağa-sola yığır. Testləşdirmə 15-30 dəqiqə çəkir. Sorğu üzrə tədqiqatın nəticələrinin qiymətləndirilməsi müayinə olunanın həyəcanlılığını sübut edən cavablarının miqdarının hesablanması yolu ilə aparılır. 14-50-ci sualların hər birinə verilən “hə” cavabına görə və 1-13-cü sualların hər birinə verilən “yox” cavabına görə 1 bal verilir. Bu testin köməyi ilə həyəcanın müxtəlif səviyyələrini aşkar etmək mümkündür: 40-50 bal- Çox yüksək həyəcan səviyyəsinin göstəricisi; 25-40 bal- Yüksək həyəcan səviyyəsinin göstəricisi; 15-25 bal- Orta (yüksək tendensiyalı) həyəcan səviyyəsi; 5-15 bal- Orta (aşağı tendensiyalı) həyəcan səviyyəsi; 0-5 bal- Həyəcanın aşağı səviyyəsi. 1975-ci ildə V.Q.Norakidze sorğuya cavablarda nümayişkarlığı, qeyri-səmimiliyi aşkara çıxarmağa imkan verən yalan şkalasını əlavə etdi. Burda 6,7,9,11,12,13,15,18,21,23,,24,25,26,28,30-38,40,42,44,45-50,53,54,56,60-cı mülahizələrə verilən “hə” cavabı və 1,3,4,5,8,14,17,19,22,39,43,52,57,58-ci mülahizələrə verilən “yox” cavabı 1 balla qiymətləndirilir. 2,10,55-ci mülahizələrə verilən “hə” cavabı və 16,20,27,29,41,51,59-cu mülahizələrə verilən “yox” cavabı qeyri-həqiqi hesablanır. Sorğunun hər iki variantı həm fərdi, həm də qrup tədqiqatlarında istifadə oluna bilər.

Depressiyanı müəyyən etmək üçün Zung şkalası testindən istifadə edilib. Bu test Uilyam Zanq tərəfindən hazırlanmışdır. Cədvəl 20 bənddən ibarətdir. Testin keçirilməsi 20-30 dəqiqə çəkir. Bu testi işləyən şəxs hər bəndin suallarına cavab verərək, “nadir hallarda”, “arabir”, “tez-tez” və ya “əksər hallarda” cavablarından birini seçir. Nəticələr təhlil edilərkən bir neçə amil qiymətləndirilir. Biz bu testi 17-18 yaşlı tələbələr arasında aparmışıq. Cədvəl doldurulmazdan əvvəl həmin şəxsə cədvəl haqqında məlumat verilir. Cədvəl doldurularkən mütəxəssis bu prosesə heç bir müdaxilə etmir. Cədvəlin tam doldurulması bir neçə dəqiqə çəkir. 20 bəndin hər birinə cavab verilməlidir. Alınan cavablar qiymətləndirilir və ümumi bal hesablanır. Nəticədə 20-80 bal arasında olan depressiya səviyyəsi alınır. Əgər, depressiya səviyyəsi 50 baldan çox deyildirsə, “depressiyasız” diaqnozu qoyulur. Əgər, 50 baldan çox və 59 baldan az olarsa, yüngül depressiya diaqnozu qoyulur. Depressiya səviyyəsi 60-69 bal arasında olanda subdepressiv vəziyyət və maskalanmış depressiya diaqnozu qoyulur. Depressiya səviyyəsi 70 baldan çox olanda əsil depressiv vəziyyət diaqnozu qoyulur.

Beləliklə, aparılan tədqiqatlar zamanı məlum olmuşdur ki, təbiət elmlərində oxuyan 1-ci kurs tələbələrində adi dərs günündə ümumi həyəcan 23 bal, imtahandan əvvəl 38 bal, imtahandan sonra isə 27 bal olmuşdur. Humanitar sahədə oxuyan tələbələrdə: adi dərs günündə ümumi həyəcan 29 bal, imtahandan əvvəl 41 bal, imtahandan sonra isə 36 bal; dəqiq elmlərdə oxuyan tələbələrdə: adi dərs günündə ümumi həyəcan 29 bal, imtahandan əvvəl 38 bal, imtahandan sonra isə 31 bal; iqtisadiyyat sahəsində oxuyan tələbələrdə ümumi həyəcan adi dərs günündə 29 bal, imtahandan əvvəl 34 bal, imtahandan sonra isə 32 bal olması müəyyən edilmişdir (Şəkil 1).




Şəkil 1. Müxtəlif ixtisaslar üzrə təhsil alan I kurs tələbələrində ümumi həyəcanın səviyyəsi.

Depressiya göstəricisinin tədqiqi zamanı maraqlı faktlar aşkar edilmişdir. Belə ki, təbiət elmlərində oxuyan 1-ci kurslarda adi dərs günündə depressiya 28 bal, imtahandan əvvəl 36 bal, imtahandan sonra isə 34 bal olmuşdur. Humanitar sahədə oxuyan tələbələrdə depressiya adi dərs günündə 32 bal, imtahandan əvvəl 35 bal, imtahandan sonra isə 37 bal olması müəyyən edilmişdir. Dəqiq elmlərdə oxuyan tələbələrdə depressiya adi dərs günündə 34 bal, imtahandan əvvəl 36 bal, imtahandan sonra isə 37.5 bala bərabər olması qeyd edilmişdir. İqtisadiyyat sahəsində oxuyan tələbələrdə isə depressiya adi dərs günündə 31.5 bal, imtahandan əvvəl 33 bal, imtahandan sonra isə 36.3 bal olmuşdur (Şəkil 2).




Şəkil 2. Müxtəlif ixtisaslar üzrə təhsil alan I kurs tələbələrində depressiya göstəricisinin səviyyəsi.

## NƏTİCƏ

Beləliklə, aparılan tədqiqatların nəticələrinin müqayisəli təhlili göstərmişdir ki, adi dərs günündə orta həyəcan səviyyəsi qeyd olunsa da, imtahandan əvvəl həyəcanın çox yüksək səviyyəyə qalxması müşahidə edilib. İmtahan prosesindən sonra isə həyəcanın orta səviyyəyə kimi enməsi qeyd olunub. Alınmış nəticə tələbələrdə yaranmış emosional gərgin vəziyyətə müvafiq olaraq normal reaksiya verməsini və həyəcanın optimal səviyyədən norma hüduduna kimi enməsini müəyyən etdi. Belə ki, tələbələrin imtahan prosesini stress faktor kimi qəbul etməsi, koqnitiv prosesləri aktivləşməsi və

yüksək uğur göstərici əldə etmək məsuliyyəti həyəcanın yüksəlməsinə səbəb olmuşdur. Depressiya göstəricisi isə hər üç mərhələdə norma hüdudunda olmuşdur (50 baldan aşağı). Nəticə sağlam və tam funksional ali sinir fəaliyyətinin olmasını sübut edir. İmtahan zamanı depressiv vəziyyətin yaranması təhsildə uğursuzluqa səbəb ola bilərdi. Tədqiq olunan imtahan stresi modelində tələbələrdə həyəcan səviyyəsinin yüksəlməsi və depressiyanın müşahidə edilməməsi imtahan zamanı tələbələrin bilik və bacarıqarının ifadə edilməsinə imkan vermişdir. Tədqiq olunan tələbələrin akademik uğur göstəricilərinin əldə edilməsi koqnitiv proseslərin də bu fonda aktivləşməsini göstərir.

**ƏDƏBİYYAT SİYAHISI**

1. Kərəmov N.Y. İmtahan stresinin nəzəri əsasları (ədəbiyyat icmalı). №4, "Elmi Xəbərlər" Qərbi Kaspi Universitetinin jurnali, 2020. Səh. **7-17**
2. Ballenger J.C., Davidson J.R.T., Lecrubier Y., Nutt D.J., Kirmayer L.J., Lepine J. Consensus statement on transcultural issues in depression and anxiety from the İnternational Consensus Group on Depression and Anxiety. J Clin Psychiatry, 2001.
3. Karamova N.Y., Hakverdieva Z., Akbarova Kh., Kazenferov E. The study about the impact of emotional tension on the students' excıtement and memory processes. World Scıence, № 8(48) Vol.3, August 2019, p.34-38, Warsaw, Poland, RS Global.
4. Miller E.J., Chung H. A literature review of studies of depression and treatment outcomes among U.S. Collage students since 1990. Psychiatric Services, 2009. J. Eur. Coll. Neuropsychopharmacol, 655-679.
5. Zisook.S, Effect of age at onset on the course of major depressive disorder. The American Journal of Psychiatry, 2007.

# TƏLƏBƏLƏRİN TƏLİM MOTİVASİYASNI ŞƏRTLƏNDİRƏN AMİLLƏR

**SƏFƏRƏLIYEVA PƏRVANƏ**
Bakı Slavyan Universiteti
Pedaqogika tarixi və nəzəriyyəsi
e-mail safaraliyevap89@gmail.com
BAKI ŞƏHƏRI

**XÜLASƏ**

Məqalədə tələbələrin öyrənmə motivasiyasının formalaşdırılması məsələlərinə və ona təsir edən amillərə yer verilir. Təlim prosesində öyrənmə motivasiyası tələbələrin öyrənmə səviyyəsinə birbaşa təsir göstərdiyi üçün çox vacib bir amildir. Öyrənmədə motivasiyanı qorumaq üçün tələbələrə maraqlı və interaktiv iş formalarını təklif etmək, onlara məqsədlərinə çatmağa kömək etmək və tələbələrin öz potensiallarını üzə çıxara biləcəkləri şəxsi hədəflər qoymalarını təmin etmək vacibdir. Bu səbəbdən müəllimlərin motivasiya prosesində əsas vəzifəsi tələbələrin öz potensiallarını ortaya çıxarmağı və öyrənmə prosesində maraqlarını artırmağı təmin etməkdən ibarətdir. Təlim prosesində müəllimbildiklərini, öyrəndiklərini, tədris etdiyi elmin əsaslarını tələbələrə çatdırmaqla bərabər, həm də sınaq və səhv, yaradıcılıq və özünüifadəni də əhatə etməlidir. Məqalədə tələbələrin təlim motivasiyasının öyrənilməsi məqsədi ilə aparılmış anket sorğunun nəticələri barədə də məlumat verilmişdir.

***Açar sözlər: öyrənmə, motiv, tələbə, müəllim***

## THE FACTORS DEFINING LEARNING MOTIVATION OF STUDENTS

**SUMMURY**

The article deals with the issues of formation of students' learning motivation and factors affecting it. Learning motivation is an important factor, as it affects the students'learning level. To maintain motivation in learning, it is important to offer students interesting and interactive forms of work, help them achieve their goals, and ensure that students set personal goals in which they can see their potential. Therefore, the motivational role of teachers is related to ensuring that students reveal their potential and increase their interest in the learning process. At the same time, the teacher must be able to convey to the students what he knows, what he has learned, and the basics of the science he teaches. Learning should include not only the transfer of information, but also the processes of trial and error, creativity and self-expression. The article also provides information on the results of a questionnaire survey conducted for the purpose of studying students' learning motivation.

***Keys words: learning, motivation, student, teacher***

Müasir cəmiyyətin yüksək səviyyəli ümumi inkişafa, yüksək peşəkarlığa, təşəbbüskarlığa və yaradıcılıq qabiliyyətinə malik insanlara ehtiyacı var. Bu, bütövlükdə təlim prosesinin yenidən qurulmasını və onun hər bir aspektininəvvəlcədənmüəyyənləşdirilməsini tələb edir.

Məlumdur ki, hər bir tələbənin uğurlu təlim fəaliyyətinin əsasını bu fəaliyyət növünə yüksək motivasiyası təşkil edir.

Öyrənmə motivasiyası təlim prosesinin məhsuldarlığını müəyyən edən amillər arasında aparıcı yer tutur. Öyrənmə prosesi tələbələr üzərində müsbət bir effekt yaradır. Bu proses, onların idrak fəallığına və biliklərinin möhkəmlənməsinə kömək edir. Tələbələr təlim vasitəsilə müxtəlif bilik və bacarıqlar qazanır, onların düşüncə və fikirlərini inkişaf etdirir.

Öyrənmə motivasiyası hər bir tələbə üçün fərqlidir, bunun səbəbi hər bir tələbənin fərqli həyattəcrübəsinə və biliyə malikolmasıdır. Tələbə motivasiyasının azalması iki amil, yəni daxili amillər və öyrənmə motivasiyasına təsir göstərə bilən xarici faktorlar səbəb ola bilər.Daxili faktorlar şəxsin özündən, xarici amillər isə şəxsə kənarından təsir edir. Motivlər təlim prosesinin başlıca hərəkətverici qüvvələridir. Motivlər dedikdə şəxsiyyəti fəaliyyətə sövq edən konkret niyyətlər, səbəblər başa düşülür.[ Rüstəmov, 2010]

Motivlərin başqalarının təsirilə yaranan xarici, yaxud tələbələrin özünün daxilindən gələn, öz təşəbbüsü ilə yaranan daxili motivlər olması da onların peşəkarlıq və səriştəliliyə yiyələnmələrində az rol oynamır. Təcrübələr göstərir ki, xarici motivlər bu prosesdə müəyyən təsir gücünə malik olsalar da, əsas rol daxili motivlərə məxsusdur. Daxili motivlər daha güclü, daha dərin və davamlı olur.

Motivlərin öyrənilməsinin böyük əhəmiyyəti vardır. Bu mahiyyət etibarilə şəxsiyyəti fəaliyyətdə öyrənmək deməkdir. Motivlər çoxdur. İnsanı fəaliyyətə eyni vaxtda müxtəlif motivlər təhrik edə bilər.[ Əlizadə& Bayramov, 2011]

Bu baxımdan tələbələrin aşağıdakı əsas motivlərini göstərmək olar:

- idrak motivləri (yeni biliklər əldə etmək və daha erudit olmaq);
- geniş miqyaslı sosial motivlər (fərdin cəmiyyətdə özünü təsdiq etmək, təlim vasitəsilə sosial statusunu təsdiq etmək istəyində ifadə olunur)
- praqmatik motivlər (işinə görə layiqli mükafat almaq);
- peşəkar və dəyər motivləri (perspektivli və maraqlı iş əldə etmək imkanını genişləndirmək);
-estetik motivlər (öyrənməkdən həzz almaq, gizli qabiliyyət və istedadları üzə çıxarmaq)
- status-mövqe motivləri (öyrənmə və ya sosial fəaliyyət yolu ilə cəmiyyətdə özünü təsdiq etmək, müəyyən mövqe tutmaq istəyi);
- kommunikativ motivlər (intellektual səviyyəni və yeni tanışlıqları yüksəltməklə ünsiyyət dairəsini genişləndirmək) (Rogers & Freiberg, 1997);
-ənənəvi-tarixi motivlər (cəmiyyətdə yaranmış və zaman keçdikcə möhkəmlənən stereotiplər);
- tədris-idrak motivləri (bilik əldə etmə yollarına diqqət yetirmək, bir neçə fənnə maraq əmələ gəlir, o, müvafiq fənləri daha ətraflı öyrənməyə başlayır)
- özünütəhsil motivləri (tələbə maraqlandığı fənlər üzrə müstəqil ssurətdə yeni biliklər əldə etməyə başlayır); [Əlizadə& Bayramov, 2011]
- sosial və şəxsi nüfuzun motivləri (cəmiyyətdə müəyyən mövqeyə yönəlmə);

- şüursuz motivlər (seçimlə deyil, kiminsə təsiri altında, alınan məlumatın mənasını tam səhv başa düşmək və idrak prosesinə tam maraq göstərməmək əsasında təhsil almaq) (Csikszentmihalyi, 2017).

Təlim fəaliyyətində bu cür motivlərin formalaşması tələbələrin tələbat sahəsinin formalaşması ilə sıx bağlıdır. Müəyyən hadisələr, şərait insanın müvafiq fəallığının mənbəyi kimi insan fəaliyyətinin motivinə çevrilir.[Həmzəyev, 2003]

Təlim prosesində tələbələrin müsbət motivasiyasının formalaşmasına aşağıdakı şərtlər də təsir edir:

- müəllimin öyrətmək bacarığı;
- tələbəyə bərabərhüquqlu şəxs kimi münasibət və bilik əldə etmə prosesinin düzgün təşkili
- tələbənin öz müqəddəratını təyinetmə və müsbət emosiyaların təşviqi;
- tələbənin öyrənmək istəyini gizlədən üsullardan istifadə
- tələbələri təlimin ən yaxın və yekun məqsədləri ilə tanış etmək;
- təlimin peşəkar və praktiki yönümlü olması, tədris materialının mövcudluğu;

tələbələrin daim həvəsləndirilməsi və təşviq edilməsi;

Yuxarıda qeyd olunanlar bizi motivasiyanı artırmağın aşağıdakı yolları olduğu qənaətinə gətirir:

- tələbəyə ali təhsil müəssisəsində qazanılan biliklərin əhəmiyyəti və gələcəkdə faydalı olması barədə məlumat vermək; (tələbə müəyyən bir sahədə yaxşı mütəxəssis olmaq üçün ali təhsil müəssisəsinə daxil olur. Məhz buna görə də pedaqoq tələbələrə fənninin onun gələcək fəaliyyətində həqiqətən faydalı olacağını sübut etməyi bacarmalıdır) (Rogers & Freiberg, 1997).
- tələbənin təkcə fənnə olan marağı deyil, həm də ondan istifadə etmək üçün onun üçün imkanların təmsil olunması təcrübədə əldə edilən biliklər; (Carver və Scheier hesab edir ki, tələbənin həqiqətən işə cəlb olunması və təlim fəaliyyəti zamanı onun qarşısına qoyulmuş tapşırıqlar, təkcə xarici deyil, həm də daxilən onlar tələbə üçün aktual olur. Çünki motivasiyanın mənbəyi daxildə olduğu zaman insan özü nəyisə etməyə hazır olmalı və bu işi tamamlamalıdır. Buna görə də öyrənmənin əsas motivlərindən biri də daxili motivasiyadır.

Bütün öyrənənlər motivasiyalı ola bilər, lakin onların motivasiya mənbələrinin fərqli olması gözləniləndir. Bu fərqləri bilən müəllim təhsilalanların öyrənmə həvəsini tənzimləmə bacarığına malik olur. Ona görə də təhsilalanlarda motivasiyanı yaradan səbəbləri bilmək pedaqoji prosesin təşkilatçıları üçün vacibdir.

Tələbələrin təlim motivasiyasının öyrənilməsi üçün Bakı Slavyan Universitetinin Rus dili müəllimliyi - 203, Azərbaycan Roman-German müəllimliyi-205, Təhsildə sosial psixoloji xidmət - 301, İbtidai sinif müəllimliyi- 301, qruplarında cavablandırılması üçün anket sorğu təqdim olunmuşdur

1. Siz dərslərdə həvəslə iştirak edirsinizmi?
2. Sizi öyrənməyə motivasiya edən nədir?
3. Asudə vaxtlarınızda təhsil aldığınız ixtisas üzrə əlavə materiallardan istifadə edirsinizmi?
4. BSU-nun kitabxanasında ədəbiyyat siyahılarından istifadə edərək araşdırma aparırsınızmı?
5. M.F.Axundov adına Milli kitabxanaya gedirsinizmi?

Aparılmış anket sorğunun məqsədi tələbələrin təlim motivasiyasının mövcud vəziyyətini araşdırmaq və onları öyrənməyə motivasiya edən amilləri müəyyənləşdirməkdir.




**Şəkil 1.** Sizi öyrənməyə motivasiya edən nədir?

Sorğu müxtəlif qruplarda 50 tələbə arasında aparılmışdır. Anket sorğunun nəticələrinə əsasən tələbələrin 48% -i müəllimlərin ünsiyyət münasibəti tələbələrə maraqlı və mənalı dərs materiallarını təqdim etməsi, izahı onların tələbə mövqeyini dinləməsi və hədəflərinə nail olmaq üçün dəstək olması onları öyrənməyə motivasiya etdiyi fikrini, 32% tələbəni gələcəkdə yaxşı mütəxəssis olmaq və peşə fəaliyyəti ilə bağlı təsəvvürlər, öz mövqeyini daha da gücləndirərək öyrənməyə motivasiya etdiyini, tələbələrin 20% -i isə alacağı təqaüd onları motivasiya etdiyi fikrini qeyd etmişlər.

Aparılmış tədqiqat Rus dili müəllimliyi və İbtidai sinif müəllimliyi ixtisası üzrə təhsil alan tələbələrin müəllim faktoruna daha çox önəm verdikləri və praqmatik motivlərin (məsələn, təqaüd almaq) onları öyrənməyə daha çox motivasiya etdiyi məlim olmuşdur. Belə ki, maraqlı və mənalı dərs materialları tələbələri öyrənmə prosesində daha da həvəsli edir və tələbələrin öyrənmə prosesində daha motivasiyalı olmasını təmin edir. Müəllimlərin ünsiyyət münasibətləri, öyrətmək bacarığı, yeni təlim texnologiyalardan (məsələn, interaktiv metodlar, layihələr, veb saytlar, və s.) istifadə edərək onların maraqlarına uyğun məzmun yaratmağı və öyrənmə prosesini maraqlandırmağı təmin etməsi tələbələri maraqlandıran mövzuları öyrənməyə sövq edir.

Azərbaycan Roman-German müəllimliyi-203 və Təhsildə Sosial Psixoloji Xidmət-301 qrup tələbələri ixtisası üzrə əlavə materiallardan və BSU-nin kitabxanasında ədəbiyyatsiyahılarından istifadə etmələri onlarda öyrənməyə daha çox motivasiya yaradır..

Təhsildə sosial psixoloji xidmət ixtisası üzrə təhsil alan tələbələrin geniş sosial motivləri və idrak motivləri – yeni biliklərin əldə edilməsi daha üstünlük təşkil edir. Tələbələr, gələcək peşə fəaliyyəti ilə əlaqədar olaraq, onların tələbəlik dövründə hədəflər qoymalarına və bu hədəflərə çatmaq üçün öz mövqeyinə uyğun şəkildə çalışmalarına kömək edəcəyini bilərək daha səmərəli bir şəkildə və öyrəndikləri məzmunun, gələcəkdə onlara daha çox kariyer imkanları və əməkdaşlıq imkanları təmin edəcəyini bilərək daha çox öyrənməyə cəlb olurlar. Demək olar ki, uzaq məqsədlərin qoyulması tələbələrin öyrənmə motivasiyasına təsir edir.

Aparılmış anket sorğunun nəticələri bizi tələbələrin təlim motivasiyasını gücləndirməkdə və onların öyrənmə prosesində müvəffəqiyyət əldə etməkdə aşağıdakı amillərin olduğu qənaətinə gətirmişdir:

- Tələbənin öz mövqeyi və hədəfləri, onun motivasiyasına çox təsir edir. Hər bir tələbənin öz şəxsi motivasiyası və məqsədləri mövcuddur.Dəqiq və aydın hədəflər qoyulması, tələbənin öyrənmə prosesinə daha səmərəli şəkildə yanaşmasına və motivasiyasının artmasına kömək edir.
- Müəllimin təlim prosesindəki dəstəyi, tələbənin hər hansi bir probleminin maraqlı və əyləncəli həll etməsi, tələbələrin öz potensiallarını üzə çıxarmaq və öz hədəflərinə daha yaxınlaşmaq üçün onları təşviq etməsi motivasiyanı artırır. Müəllim, hər bir tələbənin mövqeyini anlamağa çalışır və onun mövqeyinə uyğun təlim strategiyalarını və yanaşmalarını təyin edir. Bu, tələbənin öz potensialını daha keyfiyyətli şəkildə istifadə etməsinə və öz mövqeyinə uyğun şəkildə öyrənməsinə kömək edir.
- Müəllimin tələbələrlə ünsiyyət münasibəti, təlim prosesində ən əhəmiyyətli amilərdən biri hesab edilir. Bu münasibət, müəllimin tələbələrlə qurduğu əlaqənin keyfiyyətindən, onların təlim prosesinə cəlb olunmasından və öz mövqeyinə uyğun şəkildə öyrənməyə təşviq etməsindən asılıdır. Müəllim, tələbələrlə güclü bir əlaqə quraraq onların özünə inamnı artırır və onları öz potensiallarını maksimum səviyyədə istifadə etməyə təşviq edir. Səbirli, qayğıkeş, dürüst və anlayışlı müəllim şəxsiyyəti dərsdə tələbənin motivasiyası üçün vacib şərtlərdən biridir.
- Müəllimin yeni texnologiyalardan istifadə etməklətələbələrin maraqlarına və mövqeylərinə uyğun olaraq maraqlı və mənalı dərs materiallarını təqdim etməsi. Müəllim, tələbələrin fərqli öyrənmə ehtiyaclarına və güclərinə diqqət yetirir və dərs materialını buna uyğunlaşdırır. Bu, hər tələbənin öz potensialını daha effektiv şəkildə istifadə etməsinə imkan verir.
- Fənnə maraq, yeni bir şey öyrənmək və yüksək nəticələr əldə etmək istəyi tələbələri təlim prosesində əzmkar olmağa, dərsdə səy göstərməyə və ev tapşırıqlarını yerinə yetirməyə daha çox vaxt ayırmağa stimullaşdırır ki, bu da öz növbəsində akademik göstəricilərin artmasına səbəb olur.
- Tələbələrin başa çatdırdıqları nailiyyətlər, yaxşı davranışlar və səmərəli işləri üçün tələbələri təşviq etmək, tərifləmək motivasiyanı gücləndirir. Müəllim, hər bir tələbəni eşidərək, tələbənin öz mövqeyinə uyğun şəkildə inkişaf etməsi üçün ən yaxşı imkanları təmin edir.
- Təlim müəssisəsində yaradılmış atmosfer də tələbələrin motivasiyasına təsir edən amillərdəndir. Müəssisənin təşkilatçılığı, sinif mühiti, tələbələr arasında əlaqələr, dəstək və təşviq motivasiyanı artırmaq üçün əhəmiyyətlidir.

- Tələbələr, öyrənəcəkləri məzmun və mövzuların, onların seçdiyi və həyatlarını inkişaf etdirmək istədikləri peşə sahəsinə yaxın olduğunu görərək motivasiya hissi qazanırlar. Tələbələr, öyrəndiklərinin onların gələcəkdəki kariyerlərini formalaşdırmağa kömək edəcəyinə inanaraq, öz potensiallarını inkişaf etdirmək üçün daha çox motivasiyaya malik olurlar.

Müəllim təlim prosesinin təşkilini, tədris materiallarının rəngarəngliyini, maraqlı olmasını, sərbəst seçim şəraitinin yaradılmasını təmin edir. Tələbənin yüksək və zəif motivasiyası müəllimdən çox asılıdır. Bir çox hallarda tələbələr müəllimləri onlara inandıqlarına görə daha həvəslə çalışırlar. Güclü xarici motivasiya faktoru olan müəllim həm də ruhlandırıcıdır.

Hər bir müəllimin, təhsil strukturunun qarşısında duran əsas vəzifələrdən biri motivasiyanı və onun təlimdəki rolunu düzgün dəyərləndirmək, onu təhsilalanlarda yaratmaq və inkişaf etdirməkdən ibarətdir.

**ƏDƏBİYYAT SİYAHISI**

1. Bayramov,Ə.S.,& Əlizadə.Ə.Ə. (2011). Psixologiya.Bakı.Çinar-Çap, 145-148.
2. Həmzəyev M.Ə. (2013).Yaş və pedaqoji psixologiyanın əsasları.Bakı.Adiloğlu, 148-171.
3. Paşayev.Ə.,& Rüstəmov.F.A. (2010).Pedaqogika, Bakı, Elm və təhsil, 249-251.
4. Rogers, C. R., & Freiberg, H. J. (1997).Freedom to Learn (3rd ed.). New York, NY: Maxwell Macmillan International.
5. Csikszentmihalyi, M.( 2017).Flow: The Psychology of Optimal Experience. New York, NY: Harper and Row.

# ÖLKƏNİN İQTİSADİ İNKİŞAFINDA TƏHSİLİN ROLU

**f.-r.e.n., dos. Abdulla X. Abdullayev və Magistrant Qumru Ə.Ocaqverdiyeva**
Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC), Murtuza
Muxtarov, 194, Bakı, Yasamal, AZ1065
BMDM, Kompüter elmləri, İnformasiya sistemləri, Qrup-560
**E -mail**: a.x.abdullayev@mail.ru
**E -mail**: ocaqverdiyevaqumru2@gmail.com
BAKI , AZƏRBAYCAN

**XÜLASƏ**

Ölkənin iqtisadi inkişafının və sabitliyinin əsasının formalaşmasında insan kapitalının rolu tez-tez müzakirə olunur ki, bu fikrə həm alimlər, həm tədqiqatçılar, həm də siyasətçilər və insanların özləri diqqət yetirirlər. Aydın oldu ki, konkret cəmiyyətin necə inkişaf edəcəyində təkcə qanunvericilik bazaları, resurslar və istehsal potensialı deyil, həm də insanların özləri də mühüm rol oynayır. Belə mühüm konsepsiya çərçivəsində özlüyündə heç də az əhəmiyyət kəsb etməyən bir amil var - təhsil institutunun inkişafı və onun əhalinin geniş təbəqələri üçün əlçatanlığı. Azərbaycanda təhsil müəssisəsinin mövcud vəziyyətini və onun uğurlu fəaliyyətinin dövlətin tərəqqisinin qlobal istiqamətləri, xüsusən də davamlı iqtisadi inkişafla əlaqəsini təhlil etməyə çalışaq. Problemin öyrənilməsinin mühüm aspekti Azərbaycanda təhsil sisteminin təkmilləşdirilməsi siyasətinin dünyanın aparıcı iqtisadi gücləri ilə tətbiqinin effektivliyinin müxtəlif göstəricilərinin nəzərdən keçirilməsidir.Əlbəttə ki, təhsil sisteminin təkmilləşdirilməsi və dünyanın iqtisadi gücləri ilə əlaqələndirilməsi mühüm bir məsələdir. Bu, təhsilin iqtisadi inkişaf üçün əhəmiyyətli bir amil olduğunu və habelə dünya bazarında konkurentliyi artırmağa kömək etdiyini göstərir. Bu prosesdə effektivlik müxtəlif göstəricilərə baxış əsaslıdır, o cümlədən təhsil keyfiyyəti, mütəxəssis kadrların hazırlanması, innovasiyaların tətbiqi və daha bir çox faktor.

**AÇAR SÖZLƏR**: **Təhsil, insan kapitalı, ölkənin inkişafı, ölkə iqtisadiyyatı, təhsilə investisiya.**

## GİRİŞ

Tarixi mənbələr göstərir ki, Azərbaycanda ibtidai savad təlimi verən ilk məktəblərin yaranması yeni eranın əvvəllərinə təsadüf edir. VII əsrdə artıq təhsil sistemi formalaşmaqda idi. Daha sonralar inkişaf elə bir səviyyəyə çatmışdı ki, X-XIII əsrlərdə Azərbaycanın bir çox şəhərləri,Təbriz,Marağa,Gəncə,Naxçıvan və s.elm,təhsil,incəsənət və mədəniyyət mərkəzləri kimi tanınırdı.Eramızın XIII-XIV əsrlərində təhsil və elm sahəsindəki canlanma və inkişaf, bir sıra tanınmış təhsil ocaqlarının fəaliyyəti diqqəti cəlb edir. Onlardan Təbrizdə "Qazaniyyə", "Fələkiyyə", "Şeyx Kəmaləddin Xocəndi", "Dəməşqiyyə", "Qazi Şeyx Əli", "Məqsudiyyə" mədrəsələri geniş fəaliyyət göstərmişlər. Şənbi-Qazanda "Şəfeiyyə" və "Hənəfiyyə" mədrəsələri olmuşdur. Bakıda "Şah məscidi" yanında mədrəsə, Seyid Yəhya mədrəsəsi, Ərdəbildə Şeyx Səfi məqbərəsi nəzdindəki "Darül-irşad", Dərbənddə məhəllə məscidi yanındakı mədrəsənin fəaliyyəti daha qabarıq şəkildə özünü büruzə verirdi. Bu dövrdə orta təhsillə yanaşı, geniş ərazidə tanınmış ali təhsil müəssisələrinin də fəaliyyət göstərdiyi xəbər verilir. Təbrizdə "Rəbi-Rəşididə" darülfününu Yaxın və Orta Şərqin ən böyük təhsil ocağı idi. Bu ali məktəbdə 7 min tələbə təhsil alırdı. Burada Çin, Hindistan, Misir və Suriyadan dəvət olunmuş 500 nəfər alim tədris işilə yanaşı, həm də əhalinin müalicəsilə məşğul olmuşlar.

## TƏDQIQAT METODU

İbtidai təhsilin məqsədi uşaqlarda oxumaq, yazmaq və hesablama qabiliyyəti yaratmaq, onlarda insan, cəmiyyət və təbiət haqqında ilkin həyati biliklər, məntiqi təfəkkür elementləri, estetik, bədii zövq və digər xüsusiyyətləri formalaşdırmaqdan ibarətdir. İbtidai təhsil müvafiq təhsil proqramına (kurikulumuna) əsasən həyata keçirilir. Azərbaycan Respublikasında ibtidai təhsil altı yaşdan başlayır və birinci-dördüncü sinifləri əhatə edir.Ümumi orta təhsilin məqsədi şagirdlərdə şifahi nitq və yazı mədəniyyətinin, ünsiyyət bacarığının, idrakı fəallığın və məntiqi təfəkkürün formalaşmasını, təhsil proqramına daxil olan fənlər üzrə və eləcə də dünya sivilizasiyasının inkişafı haqqında müvafiq bilik və təsəvvürlərin yaradılmasını, müasir informasiya-kommunikasiya vasitələrindən istifadə etmək qabiliyyətini, hadisələri qiymətləndirmək və öz gələcək fəaliyyət istiqamətini müəyyənləşdirmək bacarığını təmin etməkdən ibarətdir. Ümumi orta təhsil beşinci-doqquzuncu sinifləri əhatə edir. Azərbaycan Respublikasında ümumi orta təhsil icbaridir. Ümumi orta təhsil pilləsində yekun qiymətləndirmə aparılır və təhsili başa vuran şagirdlərə müvafiq dövlət sənədi - attestat verilir. Ümumi orta təhsil haqqında sənəd təhsilin növbəti pillədə davam etdirilməsi üçün əsas sayılır. [1]

Tam orta təhsil pilləsində şagirdlərin istedad və qabiliyyətinin reallaşdırılması, onların müstəqil həyata və peşəseçməyə hazırlanması, fəal vətəndaş mövqeyinin formalaşdırılması, milli və ümumbəşəri dəyərlərə, insan hüquq və azadlıqlarına hörmətlə yanaşması və tolerantlığı, xarici dillərdən birində, yaxud bir neçəsində ünsiyyət saxlaması və s. təmin olunur. Tam orta təhsil ümumi orta məktəb təhsilinin hər üç pilləsini əhatə edən təhsil proqramlarının tam mənimsənilməsini nəzərdə tutur. Tam orta təhsil pilləsində təhsilin təmayülləşməsi (humanitar, texniki, təbiət və digər) təmin olunur.Tam orta təhsil ümumi orta məktəb təhsilinin sonuncu pilləsi olaraq onuncu - on birinci sinifləri əhatə edir və bu pillədə təhsil alanların biliyinin qiymətləndirilməsinin yekun dövlət attestasiyası həyata keçirilir. Attestasiyanın nəticəsinə görə məzunlara müvafiq qaydada dövlət nümunəli sənəd - attestat verilir. Tam orta təhsil haqqında sənəd təhsilin növbəti pillədə davam etdirilməsi üçün əsas sayılır.Ali təhsil tam orta təhsil və orta peşə-ixtisas təhsili bazasından cəmiyyətin və əmək bazarının tələbatı nəzərə alınmaqla yüksək ixtisaslı mütəxəssis hazırlığını təmin edir.[6]

Azərbaycan Respublikasının ali təhsil müəssisələrində mütəxəssis hazırlığı üç pilləlidir: Birinci pillə - bakalavr, İkinci pillə - magistratura, Üçüncü pillə – doktorantura.Bakalavr təhsil pilləsində ayrı-ayrı istiqamətlər üzrə geniş profilli ali təhsilli mütəxəssis hazırlığı həyata keçirilir. Ali təhsilin bakalavriat pilləsini bitirən məzunlara "bakalavr" ali peşə-ixtisas dərəcəsi verilir. Bakalavriat təhsil pilləsini bitirmiş məzunların əmək fəaliyyəti sahəsi elmi-tədqiqat və ali təhsil müəssisələrində elmi-pedaqoji fəaliyyət istisna olmaqla bütün digər sahələri əhatə edir.Azərbaycan vətəndaşları üçün Bakalavr təhsil səviyyəsinə qəbullar DİM(Dövlət İmtahan Mərkəzi) nəticəsi ilə qəbul olunsada xarici vətəndaşlar üçün Azərbaycan respubilkası universitetlərinə bütün təhsil səviyyələri üzrə imtahansız qəbullar mümkündür.Həmçinin Azərbaycan vətəndaşlarıda xaricdə təhsil şirkətlərinə müraciət edib heç bir imtahan vermədən xarici universitetlərə qəbul ola bilirlər. Vətəndaşlar xaricdə təhsil təhsil məsləhətçilərinə və ya xaricdə təhsil şirkətlərinə üz tutulur.[3]

Magistratura təhsil pilləsində ixtisaslaşmalar üzrə elmi-tədqiqat və ali təhsil müəssisələrində elmi-pedaqoji fəaliyyətlə məşğul olmaq hüququna malik olan ali təhsilli mütəxəssis hazırlanır.

Magistratura təhsili magistr dissertasiya işinin müdafiəsi ilə başa çatır və həmin dissertasiyanı müvəffəqiyyətlə müdafiə etmiş məzunlara «magistr» ali elmi-ixtisas dərəcəsi verilir. Ali təhsilin hər bir pilləsini müvəffəqiyyətlə bitirmiş məzununa müvafiq qaydada dövlət nümunəli sənəd - diplom verilir.Ölkə iqtisadiyyatının inkişafında təhsilin birmənalı rolu var, başqa sözlə müasir dövrdə təhsil sadəcə savadlı insanlar yetişdirmək demək deyil, insan kapitalı ümumilikdə iqtisadiyyata və ölkənin iqtisadi inkişafına qoyulan sərmayədir. Təhsil artıq mənəvi və mədəni inkişaf olmaqla kifayətlənmir, o, iqtisadi inkişafın, sosial tərəqqinin amili kimi çıxış edir. təhsil olmada ardıcıl və geridönməz iqtisadi irəliləyiş mümkünsüzdür. Biliyin rolu dəyişmiş və böyümüşdür, bilik durmadan innovasiyalar və yeni istehsal məhsulları yaradır. Bilik ümumilikdə yeni həllər və tətbiqetmələr deməkdir, bu isə hazırda proqram yazılışından tutmuş gen mühəndisliyinə qədər müxtəlif seqmentləri əhatə edən və bir çox ölkələrin iqtisadiyyatında ciddi xüsusi çəkiyə sahib olan bilgi iqtisadiyyatına yol açmışdır. Ölkənin iqtisadi inkişafının və sabitliyinin əsasının formalaşmasında insan kapitalının rolu tez-tez müzakirə olunur ki, bu fikrə həm alimlər, həm tədqiqatçılar, həm də siyasətçilər və insanların özləri diqqət yetirirlər. Aydın oldu ki, konkret cəmiyyətin necə inkişaf edəcəyində təkcə qanunvericilik bazaları, resurslar və istehsal potensialı deyil, həm də insanların özləri də mühüm rol oynayır. Belə mühüm konsepsiya çərçivəsində özlüyündə heç də az əhəmiyyət kəsb etməyən bir amil var - təhsil institutunun inkişafı və onun əhalinin geniş təbəqələri üçün əlçatanlığı.[5]

Əslində bu işin məqsədi təhsil müəssisəsinin mövcud vəziyyətini və onun uğurlu fəaliyyətinin dövlətin tərəqqisinin qlobal istiqamətləri, xüsusən də davamlı iqtisadi inkişafla əlaqəsini təhlil etməkdir. Problemin tədqiqinin mühüm aspekti Azərbaycanda təhsil sisteminin təkmilləşdirilməsi siyasətinin dünyanın aparıcı iqtisadi gücləri ilə birgə tətbiqinin səmərəliliyinin müxtəlif göstəricilərinin nəzərdən keçirilməsi idi və tədqiqatın diqqəti daha da genişləndi: göstəricilərin hesablanması üçün müxtəlif metodologiyalar və Azərbaycanda təhsil sisteminin iş mexanizmi ilə əlaqədar yaranan daha dərin sosial və siyasi məsələlər. Demokratik ölkələrin klassik modellərində təhsil müəssisəsinə mühüm rol verilir, onlar ona mümkün qədər çox vətəndaşın çıxışını təmin etməyə çalışırlar.Bu dövlətə niyə lazımdır? Birincisi, təhsilli əhali inkişafa can atan demokratik ölkələrin siyasi gücünün əsasını təşkil edir. İstər peşəkar, istərsə də siyasi bir sahədə proseslərin ümumiyyətlə necə getdiyini bilmədən, səsvermə və ya mövqeyi müdafiə etməklə ifadə olunan səriştəli rəyə sahib olmaq mümkün deyil. İkincisi, təhsil əxlaq, təhsil, asudə vaxt və s. kimi əlaqəli institutların inkişafına imkan verir. [4]

Bu, əhalinin vəziyyətinin keyfiyyətcə yaxşılaşmasından, onun yaxşılaşdırılmasından və dəyərlər sisteminin inkişafından danışmağa imkan verir. Üçüncüsü, əgər bir ölkə insanların (xüsusən də istedadlıların) əqli qabiliyyətlərinə önəm verirsə, yəni insan özünü peşəkar kimi dərk edə bilirsə, o zaman cəmiyyətdə nəinki mövqeyinin yaxşılaşması ehtimalı, həm də müsbət nəticələri var. onun əməyi, onun cəmiyyət və iqtisadiyyat üçün faydası xeyli artır. Son nöqtəyə daha yaxından nəzər salaq. İqtisadiyyat nöqteyi-nəzərindən ixtisaslı işçi qüvvəsi miqyasda artan gəlirlərə malikdir. Xərclərə - təhsilə pul ödəmək üçün vaxt və pul çəkmək lazımdır. Əgər birincidə dövlət kömək edə bilmirsə, ikincisində başqa şeylər var. Dövlətin bütün vətəndaşlarının ibtidai təhsilə çıxışını təmin etmək öhdəliyinə heç bir şübhə yoxdur, lakin ümumilikdə pulsuz təhsilin təmin edilməsinin dövlətin üzərinə düşən vəzifə olduğunu söyləmək düzgün olmazdı, çünki müxtəlif ölkələrdə keyfiyyətli ali təhsilə münasibət fərqlidir. Belə ki, bir çox sosial və iqtisadi göstəricilərə görə lider olan ABŞ-da ali təhsil yalnız ödənişli əsaslarla verilir və onun dəyəri Azərbaycan və hətta Avropa ölkələrindəki analoji proqramlardan dəfələrlə bahadır. İxtisaslı kadrların itirilməsi insan kapitalına əsaslanan texnoloji inkişaf ehtimalını əhəmiyyətli dərəcədə azaldır. Ödənişli təhsilin dövlət tərəfindən maliyyələşdirilən təhsillə bərabər olması, eləcə də qiyabi təhsilin yaranması bir tərəfdən əhalinin təhsil səviyyəsinin yüksəlməsinə səbəb olmalı idi, çünki bu, əvvəllər ali təhsil almaq üçün ali təhsil almaq imkanı olmayanlar əhalinin təhsil səviyyəsinin yüksəlməsinə səbəb olmalı idi. Digər tərəfdən, ödənişli və qiyabi təhsilin payında tədricən artım müşahidə olunur, çünki diplomu olmayan insanların damğalanması nəticəsində təhsilə şəxsi həvəsi olmayan insanların qarşısına məqsəd qoyulur - "daha yüksək təhsil almaq sosial fərqlilikdən və aşağı təbəqəyə düşməkdən qaçmaq üçün təhsil". Amma əsas amillərdən biri Azərbaycanda məcburi hərbi xidmətdir.[2]

Bunun nəticəsidir ki, gənclər məktəbi bitirdikdən sonra ali məktəbə daxil olmaq niyyətində olmasalar da, hansı peşəni seçmək istədikləri barədə heç bir təsəvvürə malik olmasalar da, əslində həmin sahənin mütəxəssisi olmaq üçün deyil, təhsil müəssisələrinə getməyə məcbur olurlar. Bu onları

maraqlandırır, amma xidmətə getməmək üçün. Yuxarıda göstərilən amillərin nəticəsi tələbələr arasında akademik göstəricilərin və oxumaq motivasiyasının əhəmiyyətli dərəcədə azalması, universitetlərin kommersiyalaşdırılması və ali təhsilin özünün və onun cəmiyyətdəki dəyərinin nüfuzdan düşməsidir.[8]

Əgər ali təhsili insanın həyatının ilkin mərhələsində peşəkar və sosial pillələrdə yüksəlməyə başlamağa imkan verən kapital hesab etsək, o zaman Azərbaycannın regionları arasında imkanlar və əlçatanlıq bərabərsizliyi ilə üzləşirik. Təhsil müəssisələrinin modernləşdirilməsində və iqtisadiyyatın rəqəmsallaşdırılmasında müasir qlobal tendensiyalarla əlaqədar olaraq, Azərbaycanın mövcud liderlərlə müqayisədə mövcud mövqeyinin çatışmazlıqları və ön sıralara çıxmaq və siyasi, sosial və iqtisadi sahələri inkişaf etdirmək üçün onların aradan qaldırılması zərurəti yaranır.[7]

**NƏTİCƏ.**

Yuxarıda göstərilən amillərin nəticəsi tələbələr arasında akademik göstəricilərin və oxumaq motivasiyasının əhəmiyyətli dərəcədə azalması, universitetlərin kommersiyalaşdırılması və ali təhsilin özünün və onun cəmiyyətdəki dəyərinin nüfuzdan düşməsidir. Əgər ali təhsili insanın həyatının ilkin mərhələsində peşəkar və sosial pillələrdə yüksəlməyə başlamağa imkan verən kapital hesab etsək, o zaman Azərbaycanın regionları arasında imkanlar və əlçatanlıq bərabərsizliyi ilə üzləşirik.

Təhsil iqtisadi inkişafda mühüm rol oynayır və məhsuldarlığa, ticarətə, texnologiyaya, səhiyyəyə, gəlir bölgüsünə və ailə quruluşuna əhəmiyyətli təsir göstərir. Təhsil ev təsərrüfatının keyfiyyət səviyyəsini, ailədə, insanlarda formaları inkişaf etməsinə kömək edir, intizam, fədakarlıq, yaxşı davranış, tolerantlıq, ünsiyyətcillik, yeni məlumat mənbələrinə can atmaq və s. kimi şəxsi keyfiyyətləri formalaşdırır. Buna görə inkişaf etmiş keyfiyyətlər insanın öz fikirlərini ifadə edərək sosial mühitə uyğunlaşması daha yaxşıdır və nöqteyi-nəzərdən həmfikir insanlar, həm də əhəmiyyətli bir status qazanın cəmiyyət tapın. İnsan kapitalını formalaşdıran təhsildir. İnkişaf etmək, dəyişmək və informasiya cəmiyyətinin vahidinə çevrilmək istəyən ailələr, təhsilə daha çox sərmayə qoymalıdırlar. Eyni zamanda həyati əhəmiyyət kəsb edir siyasi, sosial və iqtisadi məqsədlərə çatmaq üçün əldə edilən biliklərdən istifadə etmək vacibdir. Qazanılan biliklər rəfdə qalmamalı, lakin sosial məqsədləri həyata keçirmək üçün onlardan istifadə edilməlidir. İçində Zaman ailədə inkişafa və dəyişikliklərə doğru uzun bir yol keçəcək. İnkişaf etmək və dəyişmək istəyən icmalar yeni məhsullar istehsal etməlidir bilik və daim yeni məhsulları izləyin. Müasir dünyada təhsil şirkətlərin dünya bazarlarında uğur qazanmasının əsas amilidir, iqtisadi artıma təsir edir və ölkənin elmi-texniki potensialının artmasına kömək edir. Təhsil səviyyəsi və toplanmış biliklər rəqabət üstünlükləri müəyyənləşdirir .

**ƏDƏBİYYAT**

1. Беккер Г. С. Человеческое поведение: экономический подход. М.: ГУ ВШЭ, 2003. 672 с. ISBN 5-7598-0173-2

2. Бургиньон Ф. Влияние экономического роста на социальные структуры / ред. Ф. Агрионе, С. Н.Дюрлауф. Справочник экономического роста, 1B. Амстердам: Elsevier, 2005. С. 1701–1748.

3. Бургиньон Ф., Моррисон С. Распределение доходов, развитие и внешняя торговля: Анализ // Европейский экономический обзор. 1990. Т. 34, № 6. Р. 1113–1132.

4. Минсер Д. Прогресс в области анализа человеческого капитала при распределении доходов.

Нью-Йорк, 1974. 202 с.

5. Лукас Р., Стокей Н. Л., Прескотт Э. С. Рекурсивные методы в экономической динамике.

Гарвардский университет Пресс, 1989. 157 с.

6. Псахаропулос Д., Патринос Г. Борьба с нищетой среди коренного населения Латинской

Америки: новые задачи системы образования // Перспективы. 1996. Т. XXY, № 4. С. 133–144.

7. Псахаропулос Д. Вклад образования в экономический рост. Международные сравнения //

Экономика образования. 1999. № 1. С. 62–71.

10. Роберто П. Рост, распределение доходов и демократия: О чем говорят данные // Рост. 1996. Т. 1, № 2. С. 149–187.

# ƏXLAQİ DƏYƏRLƏR SİSTEMİNİN FORMALAŞMASINDA NƏSİLLƏRARASI ÜNSİYYƏT VACİB FAKTOR KİMİ

**RAMAZANOVA KƏMALƏ ŞABAN QIZI**
ADPU Şəki filialə
Pedaqoji/Psixologiya
*kemale.semedova@mail.ru*
AZƏRBAYCAN/ŞƏKİ

**XÜLASƏ**

Bu gün dəyişən həyat tərzi nəsillər arasında ünsiyyətdə fərqliliklərə səbəb olmuşdur. Ailənin strukturunda dəyişikliklər baş vermiş, nənə və baba nəvələrindən ayrı yaşamağa başlamış, dağılmış ailələrin sayı artmışdır. Bundan əlavə, eyni yaş qruplarından olan şəxslər məktəblərdə eyni siniflərdə təhsil alırlar. Yaşıd qrupları çərçivəsində oyunlar, idman və əyləncə proqramları təşkil edilir. Bu inkişaf uşaqların və gənclərin böyüklərdən ayrı mühitlərdə daha çox vaxt keçirməsinə səbəb olur. Nəticədə nəsillər arasında ünsiyyətin müddətində və miqdarında azalma müşahidə edilmişdir. Nəsillərin bir-birindən uzaqlaşması nəticəsində böyüklər bir tərəfdən iş həyatının çətinlikləri, digər tərəfdən də valideynlərinə kömək etmək, övladlarını böyütmək problemləri ilə qarşılaşırlar. Yaşlılar gənclərin köməyindən getdikcə daha çox məhrum olur, nəvələrin də nənə və babalarının, gənc nəslin yaşlı nəslin təcrübələrindən kifayət qədər faydalanmaq imkanı olmur. Bu vəziyyət nəsillərin bir-birinə kömək etməsinə mənfi təsir göstərsə də, bəzən nəsillərin bir-birinə qərəzli və hətta münaqişə ilə baxmasına da səbəb olur. Bu tədqiqat işində nəsillər arasında rəsmi və qeyri-rəsmi dini təhsilin imkanları müzakirə olunur. Mövzu əxlaq nəzəriyyələri, xüsusən L.Kolberqin Əxlaq inkişaf nəzəriyyəsi kontekstində təhlil olunmuşdur. Əxlaqi şüur və əxlaqi davranış fərdin cəmiyyətlə qarşılıqlı əlaqəsi prosesində inkişaf edir. Başqa sözlə desək, əxlaq insanlarda “mən” və “sən” münasibətindən yaranmışdır. Ona görə də əxlaq ötürülə bilən bir hadisədir. Kolberqin fikrincə, fərdin sosial qrup və ya təşkilatlarda iştirakı nə qədər yüksək olarsa, başqalarının sosial perspektivlərini mənimsəmək imkanları bir o qədər çox olar. Bu prinsiplər çərçivəsində müxtəlif yaş qruplarından olan şəxslərin cəmiyyətdə bir araya gəlməsinə şərait yaradacaq tədbirlərin təşkilinə və hər yaşda olan şəxslərin iştirak edə biləcəyi maarifləndirici tədbirlərin təşkilinə bu gün daha çox ehtiyac vardır.

**Summary**

Alınmış nəticələrin təhlili zamanı müxtəlif ixtisaslarda oxuyan tələbələrdə fərqli nəticələr alınmışdır. Belə ki, I kurs təbiət elmlərində oxuyan tələbələrdə: adi dərs günü- 36 bal (orta həyəcan səviyyəsi), imtahan zamanı- 50 bal (yüksək həyəcan səviyyəsi), imtahandan sonra- 48.5 bal (yüksək həyəcan səviyyəsi) müşahidə edilmişdir. I-ci kurs humanitar elmlərdə oxuyan tələbələrdə: adi dərs günü- 39 bal (orta həyəcan səviyyəsi), imtahan zamanı- 47 bal (yüksək həyəcan səviyyəsi), imtahandan sonra- 43 bal (orta həyəcan səviyyəsi) qeyd olunmuşdur. I-ci kurs dəqiq elmlərdə oxuyan tələbələrdə: adi dərs günü- 41 bal (orta həyəcan səviyyəsi), imtahan zamanı- 52 bal (yüksək həyəcan səviyyəsi), imtahandan sonra- 49.5 bal (yüksək həyəcan səviyyəsi) olması müəyyən edilmişdir. I-ci kurs iqtisadiyyat elmlərində oxuyan tələbələrdə isə: adi dərs günü- 39 bal (orta həyəcan səviyyəsi), imtahan zamanı- 45 bal (orta həyəcan səviyyəsi), imtahandan sonra- 43.5 bal (orta həyəcan səviyyəsi) fərdi həyəcan səviyyəsi qeyd olunmuşdur (Şəkil 1). Şəkil 1-də təsvir edildiyi kimi, imtahan prosesindən əvvəl bütün ixtisaslar üzrə təhsil alan tələbələrdə həyəcan səviyyəsi yüksəlmişdir. İmtahandan sonra fərdi həyəcanın nisbi enməsi qeyd olunsa da, adi dərs günlərində olduğu səviyyəyə çatmamışdır.




**Şəkil 1.** Müxtəlif ixtisaslarda oxuyan I kurs tələbələrində fərdi həyəcan səviyyəsinin tədqiqi.

Situativ həyəcan göstəricilərinin təhlili də diqqəti cəlb edir. I kursda təhsil alan tələbələrin situativ həyəcan səviyyəsi müxtəlif ixtisaslara görə fərqli olmuşdur. Tədqiqatda adi dərs günü, imtahan zamanı və imtahan sonra alınan nəticələr qeyd olunmuşdur. I kurs təbiət elmlərində oxuyan tələbələrdə: adi dərs günü- 34 bal (orta həyəcan səviyyəsi), imtahan zamanı- 46 bal (yüksək həyəcan səviyyəsi), imtahandan sonra- 39 bal (orta həyəcan səviyyəsi) qeyd olunmuşdur. I kurs humanitar elmlərdə oxuyan tələbələrdə: adi dərs günü- 32 bal (orta həyəcan səviyyəsi), imtahan zamanı- 44 bal (orta həyəcan səviyyəsi), imtahandan sonra- 41 bal (orta həyəcan səviyyəsi) müşahidə edilmişdir. I kurs dəqiq elmlərdə oxuyan tələbələrdə: adi dərs günü- 37 bal (orta həyəcan səviyyəsi), imtahan zamanı- 49 bal (yüksək həyəcan səviyyəsi), imtahandan sonra- 48 bal (yüksək həyəcan səviyyəsi) olması müəyyən edilmişdir. I kurs iqtisadiyyat elmlərində oxuyan tələbələrdə isə, adi dərs günü- 36 bal (orta həyəcan səviyyəsi), imtahan zamanı- 49 bal (yüksək həyəcan səviyyəsi), imtahandan sonra- 47 bal (yüksək həyəcan səviyyəsi) situativ həyəcan səviyyəsi müəyyən edilmişdir. Fərdi həyəcan səviyyəsinin nəticələrinə uyğun olaraq, imtahandan əvvəl və imtahanadan sonra situativ həyəcan səviyyəsinin dəyişikliyi müəyyən edilmişdir (Şəkil 2)




**Şəkil 2.** Müxtəlif ixtisaslarda oxuyan I kurs tələbələrində situativ həyəcan səviyyəsinin tədqiqi.

Daha dolğun məlumatlar əldə etmək məqsədilə, son kursda oxuyan tələbələr də testləşdirmə prosesinə cəlb edilmişdir. Belə ki, IV kursların statistik göstəricilərinə nəzər yetirsək görərik ki, onlarda adi dərs günündə belə həm fərdi, həm də situativ həyəcan səviyyələri daha yüksəkdir. IV kurs təbiət elmlərində oxuyan tələbələrdə: adi dərs günündə- 44 bal (orta həyəcan səviyyəsi), imtahan zamanı- 48.5 bal (yüksək həyəcan səviyyəsi), imtahandan sonra- 43 bal (orta həyəcan səviyyəsi) müəyyən edilmişdir. IV kurs humanitar elmlərdə oxuyan tələbələrdə: adi dərs günü- 44.5 bal (orta həyəcan səviyyəsi), imtahan zamanı- 49.8 bal ( yüksək həyəcan səviyyəsi), imtahandan sonra- 42.5 bal (orta həyəcan səviyyəsi) qeyd edilmişdir. IV kurs dəqiq elmlərdə oxuyan tələbələrdə: adi dərs günü- 51.2 bal (yüksək həyəcan səviyyəsi), imtahan zamanı- 54 bal (yüksək həyəcan səviyyəsi), imtahandan sonra- 49.1 bal (yüksək həyəcan səviyyəsi) müşahidə edilmişdir. IV kurs iqtisadiyyat elmləri üzrə təhsil alan tələbələrdə isə, adi dərs günü- 45.5 bal (yüksək həyəcan səviyyəsi), imtahan zamanı- 48 bal (yüksək həyəcan səviyyəsi), imtahandan sonra- 43.8 bal (orta həyəcan səviyyəsi) fərdi həyəcan səviyyəsi qeyd edilmişdir. İmtahan prosesindən əvvəl bütün ixtisaslar üzrə təhsil alan tələbələrdə yüksək həyəcan səviyyəsi qeyd olunmuşdur. İmtahandan sonra isə, göstəricinin orta səviyyəyə qədər enməsi qeyd edilmişdir (Şəkil 3).




**Şəkil 3.** Müxtəlif ixtisalar üzrə təhsil alan IV kurs tələbələrində fərdi həyəcan səviyyəsinin tədqiqi.

Situativ həyəcan göstəricisinin nəticələri isə tam fərqli olmuşdur. Belə ki, IV kurs tələbələrində situativ həyəcanın tədqiqinin göstəricilərinə nəzər yetirsək, təbiət elmlərində oxuyan tələbələrdə: adi

dərs günü- 41 bal (orta həyəcan səviyyəsi), imtahan zamanı- 46 bal (yüksək həyəcan səviyyəsi), imtahandan sonra- 42 bal (orta həyəcan səviyyəsi) müşahidə edilmişdir. IV kurs humanitar elmləri üzrə təhsil alan tələbələrdə: adi dərs günü- 42 bal (orta həyəcan səviyyəsi), imtahan zamanı- 49 bal (yüksək həyəcan səviyyəsi), imtahandan sonra- 41 bal (orta həyəcan səviyyəsi) qeyd edilmişdir. IV kurs dəqiq elmlərdə oxuyan tələbələrdə adi dərs günü- 43 bal (orta həyəcan səviyyəsi), imtahan zamanı- 49.6 bal (yüksək həyəcan səviyyəsi), imtahandan sonra- 41 bal (orta həyəcan səviyyəsi) olması müşahidə edilmişdir. IV kurs iqtisadiyyat elmi üzrə təhsil alan tələbələrdə isə, adi dərs günü- 41.3 bal (orta həyəcan səviyyəsi), imtahan zamanı- 46.5 bal (yüksək həyəcan səviyyəsi), imtahandan sonra- 44.2 bal (orta həyəcan səviyyəsi) situativ həyəcan səviyyəsi müəyyən edilmişdir. İmtahan prosesindən əvvəl yalnız təbiət elmlərində oxuyan tələbələrdə nisbi yüksəlmə qeyd olunsa da, digər ixtisaslarda oxuyanlarda çox yüksək situativ həyəcan səviyyəsi qeyd edilmişdir. İmtahan prosesindən sonra isə tədqiq olunan göstəricinin adi dərs günlərində olduğu səviyyəyə qədər enməsi qeyd edilmişdir (Şəkil 4).




**Şəkil 4.** Müxtəlif ixtisalarda oxuyan IV kurs tələbələrində situativ həyəcan səviyyəsinin tədqiqi.

## NƏTİCƏ

Beləliklə, Qərbi Kaspi Universitetində aparılan tədqiqatda müxtəlif ixtisaslar üzrə I və IV kursda təhsil alan tələbələr arasında fərdi və situativ həyəcanın adi dərs günü, imtahan zamanı və imtahandan sonra təhlil edərək, həyəcan göstəriciləri qeyd olunmuşdur. Birinci kurs tələbələri yeni təhsil mühitinə keçidlə əlaqədar artan həyəcanla qarşılaşa bilərlər. Dördüncü kursda təhsil alan tələblər isə yaxınlaşan məzun olmaq stressi və gələcəkdə baş verəcək qeyri- müəyyənliklərlə əlaqədar olaraq imtahandan sonra həm fərdi həyəcan, həmdə situativ həyəcan səviyyəsi artmışdır. Beləliklə əldə olunan nəticələrin hər biri göstərir ki, I və IV kurslarda həyəcanın səviyyəsi optimal xarakter daşıyır. İmtahan prosesindən əvvəl hər iki həyəcan göstəricisinin yüksək səviyyəyə qalxması məsuliyyət hissi ilə əlaqəli olaraq, onların koqnitiv proseslərinin də aktivləşməsinə səbəb ola bilər. İmtahan prosesindən sonra həyəcan göstəricisinin norma hüduduna qədər enməsi, bir daha tələbələrdə normal funksional beyin fəaliyyətini, koqnitiv proseslərin optimal həyəcan səviyyəsinə təsirini və ixtisasdan asılı olaraq fərqli göstəricilərə malik olmasını göstərir.

## ƏDƏBİYYAT SİYAHISI

1. Kərəmova N.Y., Cəfərova E.E., Məmmədov A.M., Əkbərova X.M., Haqverdiyeva Z.B. Stres şəraitlərində I kurs tələbələriniin koqnitiv və həyəcan göstəricilərinin müqayisəli təhlili. Azərbaycan Milli Elmlər Akademiyası Genetik Ehtiyatlar İnstitutu, elmi əsərlər, VIII cild, №2, 2019, Bakı, səh.65-70

2. Величковская С.Б., Гребенникова Т.О. (2018). Особенности проявлений стресса в период сессии у студентов с разным уровнем личностной тревожности // Вестник Московского государственного лингвистического университета. Образование и педагогические науки. №3 (802).

3. Петрова Е.Г. (2010). Исследование тревожности студентов в условии экзаменационного стресса. Journal of Volgograd State Medical University 73(1):146-149

4. Щербатых Ю.В. (2021). Методики диагностики тревоги и тревожности – сравнительная оценка. Вестник по педагогике и психологии Южной Сибири. 2021. № 2.

5. Karamova N.Y., Salimova S., Shamkhalov S., Mamedova A., Mehtizadeh Sh. Comparatıve analysıs of excıtement and ıntellectual performance of varıous specıalty students. American Scientific Journal, № (29) / 2019,Vol.3, New York, United States, p.13-16.

# XARİCİ DİLİN TƏDRİSİNDƏ VİDEOMATERİALLARDAN İSTİFADƏNİN DİDAKTİK-METODİKİ VƏ PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ

**FIRDUS MƏMMƏDLI**
Bakı Slavyan Universiteti
İxtisas: İngilis dilinin tədrisi metodikası və metodologiyası
E-mail: fmammadly11@gmail.com

Açar sözlər: tədris videomaterialları, orijinal videomateriallar, rəqəmsal tədris mühiti, tədris videomateriallarının keyfiyyətinin qiymətləndirilməsi meyarları , videomaterialların işlənmə mərhələləri

Key words: training video materials, authentic video materials, digital learning environment, quality assessment criteria for training video materials, stages of video material development

Ключевые слова: обучающие видеоматериалы, аутентичные видеоматериалы, цифровая обучающая среда, критерии оценивания качества обучающих видеоматериалов, этапы разработки видеоматериалов

Xarici dillərin tədrisində rəqəmsal texnologiyaların və açıq təhsil resurslarının səmərəli inteqrasiyasının əsas şərtlərindən biri rəqəmsal təhsil mühitinin layihələndirilməsi metodologiyasının hazırlanmasıdır.Müasir xarici tədqiqatları təhlil edərək belə nəticəyə gəlirik ki,rəqəmsal təhsil mühiti həm tədris-metodiki bilik mənbəyi, həm də müstəqil idrak fəaliyyətinin müxtəlif formalarını təşkil etmək üçün yüksək strukturlaşdırılmış mühitdir. Bu mühit, bir qayda olaraq, ya qlobal şəbəkədə formalaşır, ya da peşəkar şəkildə hazırlanmış təhsil proqramlarına və telekommunikasiya texnologiyalarına əsaslanır. Didaktik baxımdan belə bir mühitdən istifadə aşağıdakı fəaliyyət formalarının təşkilini asanlaşdırır:

- tələbələrin müstəqil fəaliyyəti
- hər bir tələbənin təhsil fəaliyyətinə fərdi dəstək
- tələbələrin qrup tərbiyəsi işi

Açıq təhsil video resursları təlimin məzmununu emosional-sensor idrak üçün interaktiv vizuallaşdırma şəklində təqdim etməyə, yəni öyrənilən obyektlərin və hadisələrin multimedia təsvirləri sistemindən istifadə edərək tədris materialını təqdim etməyə, tədris məqsədləri üçün modelləşdirməyə kömək edir[1, s. 122]. Bu gün xarici dil müəllimləri xarici dillərin tədrisində bu cür resurslardan və materiallardan istifadə və tətbiq etmək, eyni zamanda bu materiallar əsasında tapşırıqlar hazırlamaqda problemləralə üzləşirlər. Müasir cəmiyyətdə informasiya yükünün effektiv artımı və təhsil prosesinə rəqəmsal texnologiyaların tətbiqi şəraitində əsas problem vizual məlumatın qavranılması və qavranılmasında xüsusi bacarıqların inkişafı, vizual görüntü elementləri ilə səmərəli qarşılıqlı əlaqəsidir. Təqdim olunan həcmli məlumat və onun effektiv işlənməsi və şərhi üsulları arasındaki boşluğu azaltmaq üçün özünü subyektivləşdirir[2].

Yadda saxlamaq lazımdır ki,müasir texniki və informasiya dünyasında təkcə mətndə deyil, həm də şəkillərdən ibarət olan informasiyanın multimodal qavranılması informasiyanın təhlili və emalı mexanizmdə əhəmiyyətli dəyişikliklərə səbəb olmuşdur. İnsan təkcə məlumatın passiv qəbuledicisi deyil, həm də aktiv tərcüməçi və yaradıcısına çevrilir. İnformasiya emalı üçün yeni perspektivlər təhsil fəaliyyətində, xüsusən də vizual savad texnologiyasından istifadə edərək xarici dillərin tədrisi və ünsiyyəti prosesində həyata keçirilə bilər.

**Xarici Dilin Tədrisində Video Resurslar.** Video resurslar nitq fəaliyyətinin qəbuledici prosesini aktivləşdirməyə və həvəsləndirməyə imkan yaradır ki, bu müddət ərzində təkcə qavrayış deyil, həm də daxil olan məlumatların dərk edilməsi, işlənməsi və dizaynı baş verir. Onlar tələbələrdə nitq fəaliyyətinin bütün növlərinin formalaşması üçün zəruri olan müxtəlif bacarıqların inkişafına kömək edir: diqqət, tələffüz, yaddaş , təxəyyül, ehtimal proqnozlaşdırma.

Xarici dillərin tədrisində orijinal videomateriallar, o cümlədən filmlər, müsahibələr, elmi və tədris proqramları, konfranslardan yazılar və s. geniş istifadə olunur. Bu materialın fərqli xüsusiyyəti onun canlı nitq olmağıdır. Şagirdlər nəinki səlis xarici dil nitqini dinləmə ilə qavramağa, vurğuları başa

düşməyə və fərqləndirməyə, hətta müşayiət etdikləri jest və mimikaların köməyi ilə başa düşmədikləri məlumatları doldurmağa çalışırlar, yəni şifahi olmayan ünsiyyət vasitələrinin müsbət tərəflərindən yararlanırlar.

Əslində maarifləndirici videomateriallar müəyyən bir mövzu üzərində təcrübə keçmək və ya müəyyən bacarıq və ya bacarığı mənimsəmək məqsədi ilə yaradılır və beləliklə tez-tez uyğunlaşdırılmış xarici dil nitqini eşidə bilərsiniz. Bu cür video materiallardan ən çox xarici dil öyrənməyə başlayan uşaqlar və tələbələrlə işləyərkən istifadə olunur.Y.D.Brızqalina tərəfindən aparılan araşdırmalara əsasən, xarici dilin tədrisi zamanı audiovizuallaşdırılmış materialın mənimsənilməsinin effektivliyinə təkcə güclü dil və nitq bacarıqları deyil, həm də sosial-mədəni kompetensiyaların formalaşmasına təsir göstərir[4]. Bu o deməkdir ki, hər iki növ audiovizual materialla işləyərkən istənilən nəticəni əldə etmək üçün onu düzgün seçmək, CEFR-ə uyğun olaraq tələbələrin dil səviyyəsini və sosial-mədəni səviyyəsini aydın şəkildə seçdikdə təlim məqsədləri müəyyənləşdirilir.

Audiovizuallaşdırma prosesində kommunikant tərəfindən videolara baxarkən onun linqvistik və praqmatik təcrübəsinə əsaslanaraq, daxili nitqdə qavranılan nəzarət və qiymətləndirmə şərti ilə qəbul etdiyi məlumatların aktiv şəkildə işlənməsi baş verir. Məhz buna görə də xarici dil müəllimi audiovizuallaşdırma və ya video resurslardan istifadə eməklə şagirdlərin fərdi psixoloji xüsusiyyətlərini (maraqlar,motivlər,emosional vəziyyətləri) nəzərə alınmalıdır;təfəkkürün onların fərdi və şəxsi xüsusiyyətləri- onun çevikliyi, məhsuldarlığı, həmçinin üstünlük təşkil edən yaddaş növləri(həcmi,növü) şəxsiyyət yönümlüyü.

Şifahi ünsiyyətin tədrisində videomateriallar XX əsrin 50-ci illərdə Fransada audiovizual tədris metodunun inkişafının başlanğıcı ilə geniş tətbiqini tapdı. Audivizual metod bu gün xarici dilin tədrisində çox populyar olaraq qalır. 1963-cü ildə UNESCO "Audiovizual təhsilin inkişafı" toplusunu nəşr etdi,burada video materialların xarici dilin öyrənilməsində xüsusi rolu qeyd olunurdu, autentik nitqə və mədəniyyətə təsiri bildirilirdi[5]. Məlumatı audivizual formada təqdim etmək bacarığı təkcə qavrayışın vizual və eşitmə bacarıqlarını eyni vaxtda aktivləşdirməyə deyil, leksik,qrammatik (kontekstə lüğət və qrammatikanın öyrənilməsi), fonetik (əsl nitqi dinləməklə) bacarıqlarını inkişaf etdirməyə imkan verir. Şifahi nitq bacarıqlarının inkişafı üçün vizual dəstək kimi video materiallarla işləmək üç etapı əhatə edir:

1. nümayişdən əvvəl
2. nümayiş
3. nümayişdən sonra[6]

Video materialı nümayiş etdirməyə başlamazdan əvvəl hazırlıqlar tələb olunur. bunun üçün aşağıdaki növ tapşırıqlardan istifadə olunur:

- aparıcı suallar vasitəsilə diqqəti aktivləşdirmək,film və ya videonun ehtimal olunan məzmununu müzakirə etmək;
- tanış olmayan linqvistik hadisələrə, leksik və ya qrammatik materiala diqqət yetirmək

Şifahi nitq bacarıqlarının inkişafı üçün videomaterialı nümayiş etdirdikdən sonra aşağıdakı istiqamətlərdə iş aparmaq olar:

- videomaterialın dərk edirməsinin qiymətləndirilməsi- doğru/yalan suallar, filmin məzmunu ilə bağlı açıq suallar- Baş qəhrəmanın adı nə idi? Hadisələr hansı şəhərdə baş verir? Filmdəki personajlar nə edir? və s;
- baxılan videomaterial əsasında dil dəstəyinin əldə edilməsi- yəni lüğət,qrammatik formalar kontekstində öyrənilməsi, bu material üzrə qısa dialoqların qurulması və səsləndirilməsi,müxtəlif növ məşqlər. İlkin mərhələ üçün bu vəziyyətdə aşağıdaki nitq məşqləri tövsiyə olunacaq:təqlid (dialoq sətirlərini təkrarlayın), transformasiya(keçmiş zamanda dialoq xətlərini təkrarlayın),təsvir(əsas personajın görünüşünü,otağın görünüşünü təsvir edin),təkrar anlatma(personajlardan birinin monoloqunun təkrarlanması,filmdən müəyyən hadisənin təkrarlanması).

Tələbələrin idrak və yaradıcılıq qabiliyyətlərinin inkişaf etdirmək üçün vizual dəstək kimi videomateriallardan istifadə edilə bilər. Məsələn,siz tələbələrə öz video materiallarını yaratmaqla bağlı tapşırıq verə bilərsiniz. Bu cür tapşırıqlar hətta A1 səviyyəsində də mümkündür, çübki artıq dilin ilkin səviyyəsində özünü təqdim etmək,ailəsi haqqında danışmaq,binaların sadə təsvirləri,görünüşü və s.

Qeyd etmək lazımdır ki, videonun xarici dilin tədrisi prosesinə tətbiqi bir sıra konkret probemlərin həllinə kömək edir; video fraqment üzərində işləmək nitq fəaliyyətinin bütün dörd

bacarıqlarını əhatə edir,dinləməyə xüsusi diqqət yetirir( ən çətin aspekt xaric dil öyrətmək), tələbələrin üfüqlərinin genişləndirməyə və təxmin etmək,dil bacarıqlarını inkişaf etdirməyə kömək edir, tələbələrin sinifdən sonraki effektiv işləri üçün fəallığını artırır.

Şifahi nitq bacarıqlarının inkişafı üçün video məlumatların təqdim edilməsi tələbələr üçün təlim tapşırığı üçün seçim ola bilər. Tələbələrin "selfie videoları" yaratmasının müsbət tərbiyəvi təsiri T.A.Sırina öz məqalələrində qeyd edirdi[7]. Tələbələrə həm qeyri-ixtisaslaşdırılmış proqram təminatından, həm də məlumatları uzaq serverdə saxlamağa imkan verən Skype və Zoom proqramlarından istifadə edərək "selfie videoları" yaratmaq tapşırıları təklif olunub. Video formatları fərqli idi- video danışıq,video təkrar, video əsaslandırma,video reportaj ,video təqdimat, video avtobioqrafiya, video xülasə. Bu cür tapşırıqların istifadəsi xarici dildə danışmağı öyrənməyin effektivliyini artırmağa kömək etdi. Y.U.Verisokin "Video materiallar məktəblilərin xarici dil tədrisi zamanı motivasiyasını artırmaq vasitəsi kimi" əsərində göstərir ki, tədris videomateriallarının xarici dillərin öyrənilməsi prosesinə inteqrasiyası, bir tərəfdən, öyrənmənin fərdiləşməsinə, və nəticədə özünü motivasiyanın inkişafı və digər tərəfdən , bir neçə didaktik prinsipə cavab verdi,bunlar arasında görünmə prinsipini,şüur və aktivlik prinsipini xüsusilə vurğulamağa dəyər. Onu da qeyd etməyi vacib hesab edirik ki, məhz xarici dillərin tədrisi prosesinə tədricən kiçik video fraqmentlərin əlavə edilməsi, onların ətraflı təhlili və sonrada müzakirəsi şagirdlərdə sağlam maraq formalaşmasına kömək edəcəkdir. Alimlərin fikrincə ,diqqət konkret idrak prosesi deyil. Psixoloq P.Y.Qalperin iddia edir ki,"diqqət müstəqil proses deyil, yalnız digər psixi proseslərin (qavrayış,yaddaş,təfəkkür və s.) maarifləndirici xüsusiyyətdir",lakin nəticəni təkmilləşdirdiyi üçün istənilən idrak prosesində mühüm rol oynayır. Hər bir konkret tələbə üçün tədris prosesinin effektivliyi onun diqqətinin yeni informasiyanın qəbuluna və qavranılmasına yönəlib-yönəlməməsindən asılıdır. Diqqət yayındırılırsa, o zaman tələbəni, bu situasiyada, vizual materialla maraqlandırmaq və bununla da onun diqqətini cəlb etmək yollarını tapmalısınız.A.N.Leontyev iddia edirdi ki, insan öz diqqətini əvvələr naməlum obyektə yönəltmək üçün şüurlu səylər göstərirdi, dolayı yolla hansısa maraqla bağlı idi.

Müəllimlərin xarici dil dərslərində istifadə etdiyi yüksək keyfiyyətli və düzgün seçilmiş videofilmlər ,rəngli videoçarxlar və düzgün seçilmiş səslərlə yanaşı,həyat həqiqətlərinə mümkün qədər yaxın vizuallaşdırılmış materiallardır ki, bu da, şübhəsiz ki, həvəsləndirici amildir. Onların sonra baxılması və öyrənilməsi üçün bir neçə üsul var ki,video materialların düzgün seçilməsi dərsin effektivliyini və materialın öyrənilməsini müəyyən edəcək.

1. Videoya səssiz baxmaq (silent viewing).Bu texnikadan həm ekranda görünənləri müzakirə edərkən nitq fəaliyyətini stimullaşdırmaq,həm də deyilənlərə diqqət yetirmək üçün müxtəlif təxmin tapşırılarından istifadə olunur. məsələn ,qısa dialoq xətləri olan səhnələrini seçin,burada hərəkət,duyğular,yer,vəziyyət (hətta dodaq hərəkəti) deyilənlərə ipucu verir. Şagirdlər sözləri proqnozlaşdırır və sonra müqayisə edir,lakin səslə,sözlərlə deyil,əsas məzmunu proqnozlaşdırmaq üçün daha uzun replikalardan istifadə edirlər.

2. Şəkilsiz videoya qulaq asmaq. Şagirdlər yalnız səs parçasından istifadə edərək hərəkətin yeri,hərəkətin özü,personajlar haqqında təxminlər edirlər

3. Qarşıq fraqmentlər ( jumbling sequences): tələbələr fraqmentlərə hissə-hissə baxırlar. Onlar hər bir halda nə olacağını,nə baş verəcəyini müəyyən etməli və sonra hissələri və bütün parçaları əlaqələndirməlidirlər.

4. Qrupun iki alt qrupa bölünməsi (split viewing): bəzi tələbələr fraqmentə səssiz baxır,bəziləri dinləyir,lakin görmürlər. Bunun ardınca məzmunun dərk edilməsində boşluqların doldurulmasına əsaslanan müxtəlif tapşırıqlar yerinə yetirilir[9, s. 9] .

5. Culture Spot : tələbələr videoya səssiz baxırlar. Videoçarx öyrənilən dilin ölkəsinin mədəni xüsusiyyətlərinə, ölkələrimiz arasındaki mədəni fərqlərə yönəlib. Məqsəd:sosial-mədəni səriştənin inkişafı,vizual dəstəkdən istifadə edərək monoloq nitq bacarıqlarının inkişafı,hadisələri və reallıqları müqayisə etmə bacarığını inkişaf etdirmək.

6. Beyond Character:tələbələr videoya (üç və ya daha çox simvol ilə) baxır və bu personajlar haqqında daha çox öyrənmək üçün suallar yazır. Məqsəd leksik və qrammatik bacarıqların formalaşdırılması və koqnitiv-analitik bacarıqların inkişafıdır.

7. Scripting: tələbələr səssiz videoya baxırlar,burada personajlar bir-birilə qarşılıqlı əlaqədə olur və personajların bir-birinə dediklərini təsəvvür etməyə və öz sözləri ilə ifadə etməyə çalışırlar. Məqsəd:qrammatik bacarıqların formalaşdırılması,şifahi olmayan ünsiyyət bacarıqlarının inkişafı.

Son illərdə orijinal video materiallarla iş sahəsində yerli və xarici tədqiqatların təhlili göstərir ki, sinif işi üçün video fraqmentin/epizodun müddəti ilə bağlı iddia edilən tək fikir yoxdur. D.Uillis videonun nümayişi üçün ən məqbul müddəti 30 saniyədən 12 dəqiqəyə qədər hesab edir və qeyd edir ki , videodan nitq üçün stimul kimi istifadə olunarsa,tələbələrin bir dərs ərzində işini təmin etmək üçün 5-10 dəqiqəlik video fraqment kifayətdi. Bundan əlavə, unutmamalıyıq ki,tədris video-materialları audio,video və eşitmə məzmununun sıx bir konsentrasiyası olmaqla,tələbələrə güclü psixo-emosional təsir göstərir.

Beləliklə,rəqəmsal təhsil mühiti audiovizual komponent nəzərə alınmaqla qurulmalıdır. Audiovizual resursların həqiqətən effektiv vasitəyə,çevrilməsi üçün onlardan öyrənmənin didaktik prinsiplərini,həmçinin şagirdlərin yaş və psixofizioloji xüsusiyyətlərini nəzərə almaqla istifadə etmək lazımdır;onlar üçün diqqətlə düşünülmüş tapşırıqlar effektiv öyrənməyə kömək edir.

**Ədəbiyyat siyahısı**

1. Panferova E.Yu. (2019). The issue of using authentic materials for the development of foreign language communicative competence. *Baltiiskii gumanitarnyi zhurnal = Baltic Humanitarian Journal*, vol. 8, no, 3 (28), pp. 118-122. (In Russ.) https://doi.org/10.26140/bgz3-2019-0803-0029, https://elibrary.ru/khtdut

2. Grigoreva E.N., Abramova A.G., Guryanova T.Yu. (2021). Teaching a dialogue at English lessons in school. *Vestnik Chuvashskogo gosudarstvennogo pedagogicheskogo universiteta im. I.Ya. Yakovleva = I. Yakovlev Chuvash State Pedagogical University Bulletin*, no. 1 (110), pp. 112-119. (In Russ.) https://doi.org/10.37972/chgpu.2021.110.1.014, https://elibrary.ru/yznhxt

3. Begunova Ya.A. (2014). Advantages of video usage while forming English speaking skills of students of the faculty of foreign languages. *Yaroslavskii pedagogicheskii vestnik = Yaroslavl Pedagogical Bulletin*, vol. 2, no. 3, pp. 131-134. (In Russ.) https://elibrary.ru/strhej

4. Bryzgalina E.D. (2018). Audiovisual language education in the era of cross media technologies. In: T.G. Galaktionova, E.I. Kazakova, V.E. Pugach. (eds.). *Sbornik nauchnykh statei po itogam Vserossiiskoi nauch-no-prakticheskoi konferentsii goda «Filologicheskoe obrazovanie v usloviyakh elektronno-tsifrovoi sredy»* [Collection of Scientific Articles Based on the Results of the All-Russian Scientific and Practical Confe-rence of the Year “Philological Education in an Electronic and Digital Environment”]. St. Petersburg, LE-MA Publ., pp. 28-30. (In Russ.) https://elibrary.ru/vstpym

5. Budnik A.S. (2012). Development of intercultural communicative competence of high school pupils with audio-visual tools. *Izvestiya rossiiskogo gosudarstvennogo pedagogicheskogo universiteta im. A.I. Gertsena = Izvestia: Herzen University Journal of Humanities & Sciences*, no. 150, pp. 232-235. (In Russ.) https://elibrary.ru/ozqfwh

6. Baryshnikov N.V., Zhoglina G.G. (1998). Ispol’zovanie autentichnykh videodokumentov v professional’noi podgotovke uchitelei inostrannogo yazyka [The use of authentic video documents in the professional train-ing of foreign language teachers]. *Inostrannye yazyki v shkole = Foreign Languages at School*, no. 4, pp. 88-92. (In Russ.) https://elibrary.ru/tifikt

7. Syrina T.A. (2016). Kognitivnaya vizualizatsiya: sushchnost’ ponyatiya i ego rol' v obuchenii yazyku [Cog-nitive visualization: the essence of the concept and its role in language teaching]. *Vestnik Tomskogo gosu-darstvennogo pedagogicheskogo universiteta = Tomsk State Pedagogical University Bulletin*, no 7 (172), pp. 81-85. (In Russ.) https://elibrary.ru/wdhkbb

8. Bugreeva A.S. (2017). The topicality of audiovisual internet resources use in the process of teaching foreign language in non-linguistic universities. *Filologicheskie nauki. Voprosy teorii i praktiki = Philology. Theory & Practice*, no. 3-3 (69), pp. 199-201. (In Russ.) https://elibrary.ru/ygybzj

9. Safonova V.V., Bazina N.V. (2014). Metodicheskie printsipy otbora autentichnykh videofil’mov dlya uchebnykh tselei [Methodological principles of selection of authentic videos for educational purposes]. *In-ostrannye yazyki v shkole = Foreign Languages at School*, no. 7, pp. 3-10. (In Russ.) https://elib-rary.ru/sitazt

10. Medvedenko N.V. (2011). Frame as a basic definition of pedagogical tecnologies *Sibirskii pedagogicheskii zhurnal = Siberian Pedagogical Journal*, no. 1, pp. 102-107. (In Russ.) https://elibrary.ru/pdtsmh

**Дидактико-методические и психологические особенности использования видеоматериалов в обучении иностранному языку**

**Резюме**

В статье рассматривается как использование видеоматериалов и видеоресурсов способствует более глубокому вовлечению студентов в изучение иностранного языка,стимулирует развитие креативного мышления, социальных навыков, содействует овладению знаниями, умениями и навыками понимания, разговора и письма.

**Didactic-methodic and psychological features of the use of video materials**

The article deals with the use of video materials and video resources promotes deeper involvement of students in learning a foreign language, stimulates the development of creative thinking social skills ,the acquisition of knowledge. Skills and abilities in understanding speaking and writing.

**Summary**

# İNTELLEKTUAL OYUNLARDAN İSTİFADƏ ETMƏKLƏ GƏNCLƏRİN RƏQƏMSAL BACARIQLARININ ARTIRILMASI YOLLARI

**BAHAR ISMAYILOVA**
Azərbaycan Respublikasının Təhsil İnstitutu
Pedaqogika elmləri
*bahar_ismayilova@yahoo.com*
ZAQATALA, AZƏRBAYCAN

**XÜLASƏ**

Bu gün insanların rəqəmsal savadlılığı cəmiyyətin inkişafına birbaşa təsir göstərir. Bu istiqamətdə bilik, bacarıqların əsası isə ümumtəhsil məktəblərində İnformatika dərslərində formalaşdırılır. İnformatikanın son dövrlərdəki inkişafı onu texniki fəndən, təbiətdə, cəmiyyətdə informasiya proseslərinin emalı haqqında olan fundamental, tətbiqi elmə çevirmiş, bir sıra yeni elmi istiqamətlərin yaranmasına, inkişafına səbəb olmuşdur.

Gənclərin, məktəblilərin söz ehtiyatının azlığı, fikrini dəqiq, dolğun əsaslandırma, qərar vermə bacarığının qənaətbəxş olmaması, kompüter oyunlarından asılılığı müasir dövrün aktual problemlərindən biridir. Təhsilalanların bu alüdəçiliyindən tədrisyönlü məqsədlərlə istifadə edilməsi, bu istiqamətdə tədqiqatların, mütəxəssislərin birgə fəaliyyətinin genişləndirilməsinə ehtiyac vardır.

Tədqiqatın məqsədi informatika dərslərində, dərsdənkənar məşğələlərdə intellektual oyunlardan: müxtəlif səviyyəli, inteqrativ, interaktiv krossvordla işdən, rollu səhnələşdirilmiş, işgüzar oyunlardan, tədrisyönlü, "Ciddi" kompüter oyunlarından, onlayn yarışlardan istifadənin imkan və yollarını müəyyənləşdirməklə, təlimin keyfiyyətini yüksəltməkdir.

İnformasiya Texnologiyaları gündən-günə təkmilləşir, onlardan tədris məqsədli istifadə üçün yeni, fərqli inkanlar yaranır. Bütün fənlərin tədrisində intellektual oyunlardan, tədrisyönlü kompüter oyunlarından istifadə bir çox problemlərin həllində xüsusi maraq doğurur və gənc nəsildə İnformasiya Texnologiyalarına yeni yanaşmanın formalaşmasına şərait yarada bilər. Tədrisyönlü kompüter oyunlarının istifadəsi ilə bağlı xarici ölkələrin təhsil sistemində istifadə olunan qeyri-standart üsulları araşdırmaq, müxtəlif sektorlarda istifadə olunan tədrisyönlü kompüter oyunlarının təsnifatını vermək, müəllimləri bu istiqamətdə fəaliyyətə hazırlamaqla dərs prosesində təhsilalanların 100% fəallığını

təmin etmək olar. Beynəlxalq təcrübəyə uyğun olaraq respublikada İnformatika Müəllimlərinin Assosiasiyasını yaratmaq, problemlərlə bağlı konfranslar keçirərək məqsədyönlü tədbirlər görmək, sayt hazırlamaq (məsələn, İntellektual oyunlar "ölkəsinə" səyahət), müəllim, təhsilalanlar tərəfindən hazırlamış resursları sayta yerləşdirmək informatika fənninin tədrisi keyfiyyətinin yüksəlməsinə əhəmiyyətli dərəcədə təsir edə bilər.

**AÇAR SÖZLƏR: İntellektual oyunlar, inteqrativ krossvord dərs, interaktiv krossvord, tədrisyönlü kompüter oyunları, onlayn yarışlar**

**SUMMARY**

Today, people's digital literacy has a direct impact on the development of society. The basis of knowledge and skills in this direction is formed in Informatics classes in secondary schools. The development of informatics in recent times has turned it from a technical science into a fundamental, applied science about the processing of information processes in nature and society, and has led to the emergence and development of a number of new scientific directions.

Lack of vocabulary of young people and schoolchildren, lack of accurate and complete reasoning, decision-making skills, addiction to computer games is one of the urgent problems of the modern era. It is necessary to use this addiction of students for educational purposes, to expand the joint activities of researches and specialists in this direction.

The purpose of the research is to improve the quality of education by determining the possibilities and ways of using intellectual games in computer science classes and extracurricular activities: work with different levels, integrative, interactive crossword puzzles, role-playing, business games, educational, "serious" computer games, online competitions.

Information Technologies are improving day by day, and new, different ways of using them for educational purposes are emerging. The use of intellectual games and educational computer games in the teaching of all subjects is of particular interest in solving many problems and can create conditions for the formation of a new approach to Information Technologies in the younger generation. In connection with the use of educational computer games, it is possible to investigate the non-standard methods used in the educational system of foreign countries, classify the educational computer games used in various sectors, prepare teachers for activities in this direction, and ensure 100% activity of students in the teaching process. In accordance with international practice, creating an Association of Informatics Teachers in the republic, holding conferences on problems and taking targeted actions, preparing a website (for example, a trip to the "land" of intellectual games), placing resources prepared by teachers and students on the website can significantly affect the improvement of the quality of teaching of the subject of informatics.

**KEY WORDS: İntellectual games, integrative crossword, interactive crossword, educational computer games, online competitions**

**GIRIŞ**

Bu gün texnoloji tərəqqinin inkişaf səviyyəsi, rəqəmsallaşma səviyyəsi müxtəlif ölkələrdə fərqlidir. İnkişaf etmiş bəzi ölkələr kimi, bir çox layihələrin təşəbbüskarı olan Azərbaycanda da artıq "Dördüncü Sənaye İnqilabı" prosesində liderlərdən biri olmaq üçün bütün sahələrdə rəqəmsallaşmaya keçid, xüsusilə rəqəmsal iqtisadiyyatın qurulması, innovasiyaların tətbiqi prioritetlər sırasındadır. 21 yanvar 2020-ci il tarixdə İsveçrənin Davos şəhərində keçirilən Dünya İqtisadi Forumunda(1) Azərbaycan Respublikasının (AR) Prezidenti cənab İ. Əliyev və Dünya İqtisadi Forumunun prezidenti cənab B. Brende arasında Dünya İqtisadi Forumunun Dördüncü Sənaye İnqilabı Mərkəzləri Şəbəkəsinin (DSİMŞ) Azərbaycan Mərkəzinin yaradılması ilə bağlı niyyət protokolu imzalanmışdır. Azərbaycan Mərkəzi DSİMŞ-in MDB məkanında yaradılan ilk mərkəzidir. AR Prezidentinin 6 yanvar 2021-ci il tarixli Fərmanı ilə yaradılmış Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi yeni reallıqlar şəraitində ölkəmizin mövqeyini gücləndirmək, qabaqcıl texnoloji imkanlardan maksimum yararlanmaq, bu sahədə beynəlxalq təşkilatlarla əməkdaşlıq və koordinasiyanı həyata keçirmək məqsədinə xidmət edir (2).

Prezidenti İ. Əliyevin 11 oktyabr 2021-ci il tarixində imzaladığı "Azərbaycan Respublikasında rəqəmsallaşma, innovasiya, yüksək texnologiyalar və rabitə sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Fərmanına əsasən isə, rəqəmsallaşdırılmanın və innovasiyaların tətbiqinin genişləndirilməsinin, radiospektr idarəçiliyinin, rabitə və informasiya texnologiyalarının

inkişafının, tənzimləmə mexanizmlərinin təkmilləşdirilməsinin və sağlam rəqabət mühitinin formalaşdırılmasının, qeyd olunan sahələrdə keyfiyyətin artırılmasının, innovativliyin, investisiya cəlbediciliyinin və istehlakçıların maraqlarının qorunmasının təmin edilməsi məqsədilə AR Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin AR Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi adlandırılması, AR Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində İKT Agentliyi, İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi kimi publik hüquqi şəxslərin yaradılması kimi dəyişikliklər rəqəmsallaşmanın əhatə dairəsinin genişləndirilməsi ilə bağlı ölkəmizdə həyata keçirilən dövlət siyasətini əks etdirir. Bu məqamda qeyd etməmək olmaz ki, Möhtərəm Prezident İ. Əliyev bu cür fəaliyyəti ilə hər dəfə Ulu Öndərin layiqli davamçısı olduğunu sübut edir. Hələ 2003-cü ildə Cenevrədə və 2005-ci ildə Tunisdə keçirilmiş İC məsələləri üzrə Ümumdünya Sammitində təhsilin modernləşdirilməsi məsələlərinə önəmli yer verilmişdi (3) və məhz 2003-cü ilin fevral ayında qəbul olunan "Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiya (2003-2012-ci illər)"da 10 il ərzində bu sahədə görüləcək işlərin ümumi istiqamətləri müəyyənləşdirilmişdi. O dövrdə də Azərbaycan inkişaf etmiş xarici ölkələr kimi İC-nin bərqərar olması və təkmilləşdirilməsi ilə bağlı çağırışlara reaksiya verən ilk dövlətlərin sırasında idi. O illərdən indiyə qədər həyata keçirilən onlarla dövlət proqramları, tədbirlər, görülən işlərin nəticəsində Azərbaycanda "Elektron Hökumət" qurulmuş, e-gov.az portalı istifadəyə verilmişdir. AR Prezidentinin 2010-cu il 3 may tarixli Sərəncamı ilə "Azərkosmos" təsis edilmiş, Azərbaycan dövlətçilik təcrübəsi daha çox olan əksər dünya dövlətlərinin gerçəkləşdirə bilmədiyi süni peyk layihəsi ilə tarixi uğura imza atmış, Azərbaycanın telekommunikasiya peyki - "Azərspace-1" uğurla kosmosa çıxarılmışdır. Beynəlxalq təcrübəyə uyğun olaraq davamlı şəkildə həyata keçirilən proqramlar ən qabaqcıl texnologiyaların və innovativ yeniliklərin ölkə həyatında tətbiqinə geniş meydan açır.

Bu gün idarəetmənin müasir texnologiyalar üzərindən həyata keçirilməsi, rəqəmsal iqtisadiyyat quruculuğu həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan ölkələrdə geniş vüsət alaraq yeni qlobal trendə çevrilib. Hesablamalara görə, qabaqcıl rəqəmsal texnologiyaların tətbiqi 2025-ci ilə qədər dünyada ÜDM istehsalında 3-6 trilyon ABŞ dolları həcmində artıma səbəb olacaq. Hazırda qlobal informasiya sferasında illik ən sürətli artıma Çin liderlik edir. Avropa regionu transformasiya texnologiyalarının alışı üzrə ABŞ və Çindən sonra üçüncü yerdə qərarlaşıb. Xarici ölkələrdə rəqəmsal texnologiyaların tətbiqinə fərqli yanaşmaların olduğunu da qeyd etməmək olmaz. Sinqapur, Cənubi Koreya, Yeni Zelandiya və Danimarka kimi ölkələr rəqəmsallaşma sahəsində davamlı olaraq yeni təşəbbüslər göstərir, özlərinin innovativ tətbiqlərini reallaşdırırlar. Cənubi Qafqazda rəqəmsallaşma üzrə lider mövqe isə Azərbaycana məxsusdur (4).

Bütün dünyada rəqəmsallaşmanın intensiv inkişaf etdiyi müasir dövrdə XXI əsrin tələb etdiyi kompetensiyalara (bilik, bacarıq, vərdiş, dəyərlər) malik olan, xarici ölkələrdə, eləcə də ölkəmizdə reallaşan texnoloji üstünlüklərdən, müxtəlif sahələrdə gedən rəqəmsallaşma prosesindən xəbərdar olan, sürətlə dəyişən dünyaya çevik uyğunlaşa bilən, problemləri vaxtında hiss etmə və optimal qərar vermə qabiliyyətinə, fərqli düşüncə tərzinə, rəqəmsal səriştələrə, rəqəmsal həyati bacarıqlara malik gənclərin formalaşması və təkmilləşməsi üçün təhsilalanların məntiqi, tənqidi, yaradıcı təfəkkürü, İKT-dən istifadə bacarıqları yüksək səviyyədə olmalıdır. Gənclər dəqiq elmlər, texnologiyalar, informasiya texnologiyaları üzrə bilik və bacarıqlarını, həyati bacarıqlarını davamlı olaraq artırmaqla, müasir dövrün tələblərinə cavab verən mütəxəssislər kimi formalaşa və təkmilləşə bilərlər. Müxtəlif istiqamətli, inteqrativ biliklərin dərinləşdirilməsi, bacarıq və səriştələrin ali təhsil dövründə daha da təkmilləşdirilməsi yüksək səviyyəli mütəxəssislər hazırlanmasına güclü təkan verir. Mümkün olduqca tələbələrin təcrübə proqramlarının birbaşa ixtisasları ilə əlaqədar qurumlarda gücləndirilməsi nəticəsində bakalavr təhsilini başa vuran məzunlar nəzəri, həm də praktiki baxımdan hazır kadrlar kimi iqtisadiyyatın müxtəlif sahələrində uğurlu, innovativ fəaliyyət göstərə bilirlər. Belə nəticələri almaq üçün bir neçə ildir ki, xüsusilə son aylarda UNEC Zaqatala filialının tələbələri birinci kursdan başlayaraq nəzəri biliklərini, praktiki bacarıqlarını artırmaq məqsədilə öz üzərində çalışır, asudə vaxtdan səmərəli istifadə edir, rəqəmsal əsrin tələblərirnə uyğun mütəxəssis, şəxsiyyət kimi formalaşmaq və təkmilləşmək üçün yorulmadan fəaliyyət göstərir, respublika, beynəlxalq səviyyəli layihələrdə, yarışlarda iştirak edirlər. Cari tədris ilində Azerbaijan Robotics Engineering Academy (AREA) Zaqatala filialı ilə UNEC Zaqatala filialı arasında əməkdaşlıq haqqında memorandumun imzalanmasının professor–müəllim heyəti, tələbələrin, həm də məktəblilərin daha yüksək səviyyədə

fəaliyyətinə əhəmiyyətli dərəcədə təsir edəcəyini əminliklə demək olar. UNEC Zaqatala filialının könüllü tələbələri vaxtaşırı məktəblilərlə əlaqə saxlayır. Keçən dərs ilində məzun olmuş iki tələbəmiz son iki ildə bir qrup tələbə və məktəbliyə ictimai əsaslarla İKT-dən istifadə, Python roqramlaşdırma dili ilə bağlı iki aylıq onlayn kurs keçmiş, krossvord tərtibi ilə bağlı məşğələlərdə şagirdlərə köməklik göstərmişlər.

Qeyd etdiyimiz kimi, gənclərin, o cümlədən məktəblilərin əksəriyyətinin kompüterdən, İnternetdən əsasən əyləncə məqsədilə istifadə etməsi, kompüter oyunlarına alüdəçiliyi müasir dövrün aktual problemlərindən biridir və müxtəlif mənfi nəticələrə gətirib çıxarır. Bu İnformatika fənninin tədrisi prosesində də özünü göstərir. Belə ki, şagirdlər dərsdə daha çox kompüter oyunlarına, İnternetdə, sosial şəbəkələrdə işləməyə həvəs göstərir, mobil cihazlardan istifadə onların bu fəaliyyətinə imkan yaradır və bu da şagirdlərin nəzəri materialları, terminləri oxuyub-anlama, eləcə də analiz, sintez bacarıqlarının zəifləməsinə, dərs prosesində fəallığının aşağı düşməsinə səbəb olur, biliklərin mənimsənilməsinə mənfi təsir göstərir. Təhsilalanların dərsə marağının artması, onların dərs prosesində fəallığının təmin edilməsi, oxuyub-anlama və dərk etmə səviyyəsinin yüksəlməsi, tədris prosesində idrak fəallığını stimullaşdıran problemli situasiyaların yaradılması, biliklərə yiyələnmə fəaliyyətinin təşkili dərsdə istifadə olunan üsul və vasitələrin düzgün seçilməsi ilə birbaşa bağlıdır. Dərs prosesi məktəblilərin əsas fəaliyyət növü olduğu üçün bu prosesdə onların aktivliyinin artırılması imkanlarının axtarılması təhsilin keyfiyyətinin yüksəldilməsi üçün vacib şərtlərdən biridir.

Şagirdlərin dərsdə bəzən passiv mövqe tutması səbəblərindən biri şagirdin fərdi psixoloji xüsusiyyətləridir. Məsələn, dərsdə bəzi məktəblilərin (ali məktəblərdə adətən I kurs tələbələrinin) situasiyadan asılı olaraq özünə inamı dəyişir, bəzən isə çox azalır, yaxud kompleksi var, dərs zamanı cavablarının səhv ola biləcəyini düşünərək, həmyaşıdlarından, müəllimdən utanaraq cavab verməkdən imtina edir və müəyyən müddətdən sonra daha da passiv vəziyyətə düşürlər.

Xüsusi proqramlardan istifadə etməklə hazırlanmış inteqrativ, interaktiv krossvordlardan istifadə bu problemin həllinə kömək edə bilər. Kompüter qarşısında əyləşərək müstəqil şəkildə krossvord həlli zamanı şagird artıq heç kimdən çəkinmədən cavabları kompüterə daxil edir, səhvini həmin anda görür, dəfələrlə məşq etməklə düzgün variantı tapa bilir. Nəticədə mənfi emosiyalardan uzaq olar, özünə inamı artır, eyni zamanda bilik və bacarıqlarını daha da təkmilləşdirir.

Fikrimizcə, mövzulara aid müxtəlif səviyyəli krossvordların həlli, eyni zamanda şagirdlərin, tələbələrin özlərinin krossvord hazırlanmasına cəlb edilməsi təlimin fərdiləşdirilməsinə, məktəblilərin dərsdə müəyyən müddətdə (məsələn, 5-7 dəqiqə) 100% fəallığına, özünüqiymətləndirməsinə, özünütəkmilləşdirməsinə, kitabla, lüğətlə, əlavə materiallarla işləməsinə, terminləri oxuyub anlamasına, söz ehtiyatının, öyrənmə motivasiyasının artmasına imkan yaradan az sayda üsullardan biridir. Dərsdə vaxt məhdudluğu olduğuna görə hər bir şagirdin bilik və bacarıqlarında olan zəifliklәti görüb, ona anlatmaq, aradan qaldırmaq mümkün deyil. Amma krossvord həlli zamanı özünüqiymətləndirmə prosesi reallaşır, şagird şagird hansı sualı bilmədiyini, səhvini həmin anda görür və düzəltməyə çalışır.

İntellektual oyunların bir növü olan krossvord tərtib etmək üçün şagird mövzunu oxumalı, məzmuna uyğun faktoloji, müqayisəedici, ümumiləşdirici, dəyərləndirici suallar hazırlamalı, bu sualların cavabını axtarıb tapmalıdır. Bu da nəticə etibarı ilə məzmunun daha yaxşı mənimsənilməsinə səbəb olur. Beləliklə, İnformatika fənninin tədrisində həm mövzunun mənimsədilməsi, həm də şagird nailiyyətlərinin qiymətləndirilməsi prosesində müxtəlif səviyyəli, inteqrativ, interaktiv krossvordlardan istifadə ən zəif şagirdin, tələbənin belə inkişafına səbəb ola bilər.

Ümumi vəziyyət baxımından qeyd etmək lazımdır ki, məktəbəqədər tədris müəssisələrində, ibtidai siniflərdə oyun texnologiyalarından istifadə imkanları və təcrübəsi daha çoxdur, V–XI siniflərdə isə bu təcrübə azalır. Bu siniflərdə məqsədəuyğun şəkildə tədrisyönlü oyunlardan istifadə olunmaması və ya az istifadə olunması şagirdlərin biliklərə yiyələnmə motivasiyasının, nəticədə təlim-tərbiyənin keyfiyyət göstəricilərinin azalması səbəblərindən biri kimi qiymətləndirilə bilər. Buna görə də digər müasir pedaqoji üsullarla, vasitələrlə yanaşı diaqnostik, korreksiya, psixotreninq, terapevtik, kommunikativ, özünüreallaşdırma, sosiallaşma və s. funksiyaları yerinə yetirən tədrisyönümlü intellektual oyunların, onların bir növü olan krossvordun, işgüzar oyunların tədris prosesində məqsədəuyğun şəkildə istifadəsi informatika fənninin tədrisində qarşıya çıxan bir çox problemlərin həllinə, fənnin tədrisi keyfiyyətinin yüksəlməsinə səbəb ola bilər. Təsadüfi deyil ki, təlim-tərbiyə prosesində oyun texnologiyalarının didaktik imkanları haqqında ilk konsepsiyalar məşhur pedaqoqlar

Y. A. Kamenski, K. D. Uşinski, A. S. Makarenko, B. A. Suxomlinski və b. tərəfindən hazırlanmışdır. K. D. Uşinski qeyd edirdi: "*Oyunlarsız uşaqların əqli-mənəvi inkişafı mümkün deyil*" (İsmayılova, 2017). Oyundan istifadənin əhəmiyyəti haqqında məşhur tədqiqatçıların, psixoloqların fikirlərinə görə: "*İntellektual oyun müəyyən bacarıqların formalaşmasına çox böyük təsir etdiyi üçün hava kimi, qida kimi zəruridir", "İntellektual oyun elə"nərdivandır" ki, onu qalxdıqca insan yaradıcı xüsusiyyətlər qazanır, Hər bir oyun uşaq üçün həyat məktəbi, özünütərbiyə üsuludur.","Oyun sosial münasibətlərin "hesabı"dır, psixi funksiyaların inkişaf etdirilməsində aparıcı formalardan biri və uşaqların real dünyanı (böyüklərin dünyasını) dərk etmə üsuludur. Oyun - peşələr üçün tipik situasiyaların yaradılması və praktik həllərin tapılmasına kömək edir".*

İntellektual oyunların tədris prosesində tətbiqi məsələləri ilə bağlı müxtəlif vaxtlarda bir sıra tədqiqatlar aparılmışdır. Sovet psixoloji məktəbinin nümayəndələrindən olan L.S.Vıqotski, A.N.Leontyev, S.L.Rubinşteyn, D.B.Elkoninin yaradıcılığında tədris prosesində əsasən rollu oyunlardan istifadə "aparıcı fəaliyyət" kimi qeyd olunurdu. C. V. Morozovanın elmi işlərində daha çox didaktik oyunlardan istifadəyə yer verilir . A. Yigit, prof. Y. Gülbahar, F. Kalelioğlunun və digər alimlərin yaradıcılığında da müxtəlif növ intellektual oyunlar, kompüter oyunlarının tədris prosesində tətbiqi araşdırılmışdır. Amma bu tədqiqatlarda məhz krossvorddan, işgüzar oyunlardan istifadə, onların dərs prosesində tətbiqinə təlimin keyfiyyətinin yüksəldilməsi vasitəsi kimi baxılmamışdır.

Respublikamızda ümumtəhsl məktəblərində informatika fənninin tədrisinin keyfiyyətinin yüksəldilməsi ilə bağlı məsələlər Ə.C. İmanov, A. Ə. Əzizova (F. Q. Səfərəliyeva, R. C. Hacıyeva, A. M. Qasımovanın işlərində tədqiq olunmuşdur. Müxtəlif fənlərin tədrisində İKT-dən istifadə ilə bağlı İ.N.İsmayılovun, N. Ə. Abışovun, S.S. Həmidovun və başqalarının da tədqiqat əsərləri vardır. Lakin bunların heç biri informatika təliminin keyfiyyət göstəricilərinin yüksəlməsində intellektual oyunların, krossvord, tədrisyönlü kompüter oyunlarından istifadənin yolları və imkanlarının araşdırılmasına həsr olunmamışdır.

İntellektual oyunların dərs prosesində və dərsdənkənar tədbirlərdə tətbiqinin daha mükəmməl metodikasının işlənməsi artıq çoxdan zərurətə çevrilmişdir. Lakin problem o qədər də sadə deyildir. Hətta inkişaf etmiş xarici ölkələrdə belə, bir çox müəllimlər və təhsilalanlar bu formada təhsil fəaliyyətində iştirak etməyə, prosesi təşkil və idarə etməyə mənəvi, psixoloji, metodiki cəhətdən kifayət qədər hazır deyillər. Tədrisyönümlü intellektual oyunların müxtəlif parametrlərə görə təsnifatının və paket şəklində intellektual oyunlar sisteminin (poliqrafik-vəsait və kompüter variantı) olmaması, müəllimlərdə oyun fəaliyyətinin planlaşdırılması, tədris prosesinə inteqrasiya bacarığının qənaətbəxş olmaması, oyun texnologiyalarından istifadə üçün metodikanın, metodik vəsaitlərin azlığı, olmaması və s. bu istiqamətdə tədqiqatlar aparılmasının zəruriliyini təsdiq edir.

Ölkə başçısı İ. Əliyevin müəyyən etdiyi "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də qeyd olunduğu kimi, perspektiv həyat dərin rəqəmsallaşma, yeni texnologiyaların aktiv tətbiqi və insan iştirakı olmadan ən müasir sahələrin sürətli inkişafı ilə səciyyəvi olacaqdır. Buna görə də ölkəmizdə rəqabətli insan kapitalı və innovasiya məkanının yaradılması üçün inteqrativ tədris təcrübəsi inkişaf etdirilməli, dəqiq elmlər, texnologiyalar, informasiya texnologiyaları üzrə XXI əsrin tələb etdiyi kompetensiyalara, sosial vərdişlər və bacarıqların inkişafına əsaslanan təhsilə xüsusi önəm verilməlidir.

İnteqrativlik kurikulumun əsas prinsiplərindən biri olduğu üçün neçə illərdir ki, tədris prosesində fəndaxili, fənlərarası inteqrasiyanın tətbiqinə önəm verilir. İnformatika fənninin tədrisi prosesində bir çox mövzuların həyat bilgisi, fizika, riyaziyyat, biologiya, coğrafiya fənn müəllimləri ilə birgə inteqrativ dərs kimi keçilməsi, terminlərin müxtəlif fənn müəllimləri tərəfindən şərhi mövzunun dərindən mənimsənilməsinə, şagirdlərdə inteqrativ biliklərin yaranmasına səbəb olur. Bir və ya bir neçə mövzuya, tədris vahidinə aid hazırlanan inteqrativ krossvordların həlli üzrə yarışların keçirilməsi əyləncəli, həm də maraqlı olmaqla bərabər ən zəif şagirdin belə dərsdə fəal iştirakına səbəb olur, dəfələrlə yarış, məşq şagirdlərin nailiyyətlərini artırır, təkmilləşməsinə imkan aradır. Hər bir şagird krossvord həlli zamanı kompüter oyunlarında olduğu kimi anında səhvini görür, özünüqiymətləndirir, bilmədiklərini öyrənir, yenidən yarışa qatılır, dəfələrlə məşqdən sonra yaxşı oxuyan şagirdlərin sırasında olur.

"Informatika təlimi keyfiyyətinin yüksəldilməsində intellektual oyunlardan istifadənin imkan və yolları" adlı tədqiqatın məqsədi ümumtəhsil məktəblərində informatika dərslərində, dərsdənkənar məşğələlərdə intellektual oyunlardan: müxtəlif səviyyəli, inteqrativ, interaktiv tədrisyönlü

krossvordların həlli, hazırlanması, krossvordda olan sözlərlə bağlı esse yazma, rollu səhnələşdirilmiş, işgüzar oyunlardan, tədrisyönlü, "Ciddi" kompüter oyunlarından, onlayn yarışlardan istifadənin imkan və yollarını müəyyənləşdirməklə, təlimin keyfiyyətini yüksəltməkdir.

Tədqiqat zamanı aşağıdakı vəzifələri yerinə yetitmək qarşıya qoyulmuşdur:

1. İntellektual oyunların pedaqoji anlayış kimi mahiyyəti və təlim vəzifələrinin şərh olunması;
2. Problem baxımından pedaqoji, psixoloji, metodik ədəbiyyatın, proqram və dərsliklərin, məktəb təcrübəsinin təhlil edilib ümumiləşdirilməsi;
3. İnformatika fənninin intellektual oyunlar vasitəsilə tədrisinin pedaqoji-psixoloji aspektlərinin analizi;
4. İnformatikanın təlimi prosesində intellektual oyunların müxtəlif növlərinin tətbiqi imkanlarının və bu istiqmətdə Beynəlxalq təcrübənin araşdırılması;
5. İnformatikanın təlimi keyfiyyətinin intellektual oyunlar vasitəsi ilə yüksəldilməsinə xidmət edən səmərəli yolların, alət və vasitələrin müəyyənləşdirilib təcrübədə tətbiq edilməsi;
6. Pedaqoji eksperiment keçirməklə İnformatika dərslərində intellektual oyunların məqsədyönlü tətbiqinin təlimin keyfiyyətinə və şagird nailiyyətlərinin inkişafına müsbət təsirinin sübuta yetirilməsi.

Tədqiqat üzərində iş prosesində prosesində bu vəzifələrə uyğun olaraq informatika təliminin keyfiyyətinin yüksəldilməsinə nəzəri əsas ola biləcək ədəbiyyatlar araşdırılmış, qarşıya qoyulmuş problemin həlli üçün nəzəri və metodik əsaslar müəyyənləşdirilmiş, tədqiqatın işçi fərziyyəsi formalaşdırılmış və ifadə edilmişdir. Görkəmli pedaqoq-alimlərin oyun texnologiyaları ilə bağlı fikirləri, intellektual oyunların növləri, funksiyaları. Təhsil sistemində intellektual oyunlardan, tədrisyönlü kompüter oyunlarından istifadə ilə bağlı beynəxalq təcrübə araşdırılmışdır. İntellektual oyun ifadəsini ilk dəfə işlədən K. M. Qroosa görə intellektual oyunun fiziki əməklə məşğul olan insanların məişətində "tamamlayıcı" kimi xüsusi funksiyası vardır. İntellektual oyunlarla məşğul olan insan uğursuzluqlar, münaqişələr, streslərlə. dolu real həyatda unudulmuş bəzi hissləri: əqli imkanlarının reallaşması sevincini, qrupla fəaliyyət hissini, qazanılmış qələbə hissini yaşayır (İsmayılova, 2017).

İntellektual oyun - fərdi və ya daha çox kollektiv şəkildə, məhdud bir zaman müddətində məhsuldar düşüncənin köməyi ilə bilikləri və sosial reallıqları dərk etmək üçün tapşırıqların həll olunmasıdır. İntellektual oyunlar özündə oyun və tədris fəaliyyətini birləşdirir, nəzəri düşüncəni inkişaf etdirir, əsas psixi əməliyyatları (təsnifetmə, analiz, sintez və s.) yerinə yetirməyi tələb edir. İntellektual oyunlar mürəkkəb, adətən qeyri-standart həlləri tapmağı öyrədir, komandanın problemləri anlamasına kömək edir, professional bacarıqları formalaşdırır, oyunçunun fərdi reaksiyasının sürəti, kollektiv şəkildə reaksiyanın sürəti artır**.** Bu zaman iştirakçıların heç birinin təklikdə əldə edə bilməyəcəyi yeni keyfiyyət – sintez olunmuş informasiya, bilik, bacarıq əldə edilir. İntellektual oyunun mahiyyətini bir az da dəqiqləşdirmək istəsək:

İntellektual oyun – uğurun insanın əqli qabiliyyətinə əsasən əldə edildiyi bir fəaliyyətdir. Intellektual oyun prosesində problemli vəziyyət yaranır, ideyaların generasiyası baş verir, ən yaxşı ideyanın seçilməsi, təhlili, yoxlanması aparılır.

Elmi nəzəriyyələrin, pedaqoji, oyun praktikasının analizi intellektual oyunu pedaqoq və psixoloq J. P.Gilford və V. N. Drujininin klassik fikirlərinə əsaslanaraq psixoloji və pedaqoji baxımdan ətraflı müəyyən etməyə imkan verir:

Intellektual oyun - düşüncə və yaddaşın tam şəkildə cəlb olunduğu bir fəaliyyətdir. İştirakçı-oyunçuların əqli əməliyyatları isə təqdim olunmuş materialın müəyyən edilməsi və anlaşılmasına istiqamətlənmişdir (İsmayilova, 2020).

C. A. Şmakova görə oyunlar aşağıdakı funksiyaları yerinə yetirir.

- sosiallaşma;
- millətlərarası ünsiyyət;
- özünüreallaşdırma;
- kommunikativlik;
- diaqnostik qiymətləndirmə;
- terapevtik funksiya.

D. B. Elkonin "Oyunun psixologiyası" əsərində yazırdı: *"*Rollu oyunlarda şagirdin məcburiyyət və aqressivlik əvəzinə həmyaşıdları ilə və yaxud böyüklərlə yaratdığı azadlıq və əməkdaşlıq

münasibətləri, məhz bu yeni real əlaqələrlə bağlı təcrübə, nəticədə oyunların şagirdə terapevtik təsirinə gətirib çıxarır" .

A.Q. Şmelevə görə kompüter oyunlarının insanın özünümüayinə, sınaqdan keçirmək, psixotreninq, sosial adaptasiya, istirahət tələbatı və s. kimi ehtiyaclarını əks etdirən funksiyaları var.

Yuxarıda qeyd etdiyimiz kimi, intellektual oyunların bir növü olan krossvord həlli və hazırlanması təlimin fərdiləşdirilməsi, şagirdin özünüqiymətləndirməsi, özünütəkmilləşdirməsi üçün ideal vasitədir. Hər bir fənnə aid mövzuların mənimsənilməsində ilk növbədə həmin mövzuya aid anlayışları başa düşmək, bu terminlərlə bağlı praktik bacarıqlara yiyələnmək, dəfələrlə təkrar edərək yadda saxlamaq vacibdir. Bu fəaliyyətlərin reallaşmasında krossvord həlli və hazırlanmasının əhəmiyyətini heç nə ilə əvəz etmək olmaz. Krossvord tərtib etməyə çalışan şagird mövzuya, məzmuna uyğun müxtəlif təyinatlı sualları, onların cavablarını özü hazırladığı üçün onun oxuyub-anlama bacarıqları formalaşır və təkmilləşir, dəfələrlə krossvord həlli zamanı isə mövzunun mahiyyətini dərindən öyrənir, dərk edir və yadda saxlayır. Krossvord həlli, hazırlanması beynəlxalq təcrübədə ən effektiv üsullardan biri kimi istifadə olunur. Bəzi müəllimlər krossvorddan bilik və bacarıqların oyun şəklində əldə olunması üçün istifadə edirlər, tibbdə isə sakitləşdirici vasitə kimi istifadə olunur.

Statistik məlumatlara və elmi əsaslandırmalara görə amerikalı alimlər hesab edirlər ki, dinamik, tələtümlü müasir dövrdə stressləri neytrallaşdıran ən sadə və təsiredici vasitələrdən biri krossvorddur. Təsdiq olunmuşdur ki, krossvord həlli bütün orqanları optimal rejimdə işləməyə səfərbər edir. Krossvordu həll etdikdən sonra insanın duyduğu məmnunluq hissi ən azı 5 dəqiqəlik ürəkdən gülüşün verdiyi faydaya, C vitamininə bərabər hesab olunur. Avstraliyalı alim P. Barletin tədqiqatları təsdiq edir ki, davamlı krossvord həlli, müəyyən məsafəyə qaçışlar vasitəsilə yaşla bağlı bəzi problemləri aradan qaldırmaq mümkündür (İsmayilova, 2020).

Krossvordun tətbiq dairəsi daim genişlənir və ondan professional keyfiyyətlərin yoxlanılması üçün istifadə olunur. Son illərdə reklam üçün də krossvorddan istifadə olunmağa başlanmışdır.

Beynəlxalq təcrübədə krossvord həlli, hazırlanması istiqamətində müxtəlif tədbirlər reallaşdırılır. Bu tədbirlərin təşkilatçılarından biri olan Ümumdünya Krossvord İdman Federasiyası tərəfindən hər il dünya çempionatı keçirilir. Bu günə qədər keçirilən çempionatlarda ABŞ, Almaniya, Çexiya, Yaponiya və digər ölkələrin komandaları qalib gəlmişdir. Rusiya və Ukraynada da müxtəlif krossvord çempionatları və turnirləri keçirilir**.**

İntellektual oyunların bir növü olan kompüter oyunu - oyun tərəfdaşları ilə və ya kompüterin özünün bir tərəfdaş kimi çıxış etdiyi oyun prosesini təşkil edən kompüter proqramıdır. İlk kompüter oyunları 1960-cı illərdə yaradılmışdır. 1980-cı illərdən tədrisyönlü kompüter oyunlarından istifadə geniş vüsət aldı. “The Oregon Trail” Şimali Amerika məktəblərində geniş istifadə olunan ilk tədrisyönlü kompüter oyunudur. 2011-ci ildən ABŞ-da kompüter oyunları rəsmən incəsənətin ayrıca bir növü kimi tanınır. Bu oyunlar inkişaf etdikcə cəmiyyətə əhəmiyyətli dərəcədə təsir göstərməklə informasiya texnologiyalarında digər tətbiqi proqram təminatı üçün oyunlaşdırma şəraiti yaradan davamlı cərəyan, trend oldu. Məsələn, oyunların ikiölçülüdən üçölçülüyə keçməsi üçölçülü tətbiqi proqramların inkişafına (Maya, 3D Max, Blender AutoCad, ArxiCad və s) təkan verdi. Təkcə üçölçülü proqramlar üçün deyil, ümumiyyətlə həmin tendensiya bütün (səs, video və s.) istiqamətlərdə böyük sürətlə inkişafa səbəb oldu.

Beynəlxalq təcrübədə uşaqların, gənclərin kompüter oyunlarına alüdəçiliyindən tədrisyönlü məqsədlərlə istifadə üçün Tədrisyönlü kompüter oyunları, “Ciddi oyunlar”yaradılır, onlardan təhsil sferasında, akademik dairələrdə uğurla istifadə olunur.

“Ciddi oyunlar” tədris məqsədlərini həyata keçirmək: öyrətmək, bilik və bacarıqları təkmilləşdirmək, dünyagörüşü genişləndirmək və s. məqsədlərlə yaradılmışdır. “Serious Games*”* (“Ciddi oyunlar”) dedikdə, dövlət səviyyəsində və ya korporativ təlim, təhsil, səhiyyə, siyasət və sosial sferalarda strateji məqsədlərlə, müsabiqə ruhlu intellektual yarışmalarda, təlim və s. xarakterli istifadə üçün xüsusi qaydalara uyğun olaraq istifadə olunan inkişafetdirici kompüter oyunları nəzərdə tutulur (5). Oyunların mahiyyəti və funksiyaları nəzərə alınaraq təhsil, səhiyyə, sənaye, hərbi və s. kimi sferalarda məqsədəuyğun şəkildə müxtəlif növ tədrisyönlü kompüter oyunlarından, “Ciddi oyunlar”dan istifadə zamanı effektiv nəticələr alınır.

“Ciddi oyunlar”, tədrisyönlü kompüter oyunları müxtəlif növ insan fəaliyyətini imitasiya etdiyi üçün oyunçulara bir sıra sosial, tarixi və iqtisadi prosesləri tədqiq etməyə, müxtəlif rollarda virtual fəaliyyət göstərməyə imkan verir. Məsələn, “The SimCity” seriyası və “Caesar“ kimi oyunlarla

oyunçular şəhərə rəhbərlik, idarəetmə ilə məşğul olmağı, sosial praktiki və iqtisadi prosesləri tədqiq etməyi öyrənirlər. “Civilization” və “Europa Universalis” seriyaları kimi imperiya quruculuğu oyunlarında, “Europa universalis 4” strategiya oyunu, “Super Power 2” oyununda oyunçular tarixi, siyasi, iqtisadi və hərbi sferalarda müxtəlif istiqamətli virtual fəaliyyət göstərirlər **[5].**

“Railroad Tycoon”və “Rails Across America”, “Train Simulator”, “European ship” oyunları mühəndislik və dəmir yolu idarəetmə, gəmi idarəetməsində istifadə olunur. Call of Duty və SoCoM oyunlarından hərbiçilər istifadə edirlər. Xarici təcrübədə istifadə olunan tədrisyönlü kompüter oyunlarının araşdırlması, məqsəduyğun şəkildə istifadəsi müxtəlif fənlərin tədrisində effektiv nəticələr verər.

İntellektual oyunların tətbiqi ilə bağlı olan bu tədqiqat işi 2 fəsildən ibarətdir:

I Fəsil İnformatikanın tədrisi prosesində şagirdlərin intellektual oyunlardan istifadəsinin nəzəri əsasları

II Fəsil İnformatikanın tədrisi prosesində şagirdlərin intellektual inkişafının metodik əsasları

**TƏDQIQAT METODU**

Tədqiqatda nəzəri təhlil, müşahidə, sorğu, intervyu, pedaqoji eksperiment, tədqiqatın nəticələrinin riyazi və statistik işlənilməsi kimi tədqiqat metodlarından istifadə olunmuşdur.

Nəzəri təhlil metodu ilə intellektual oyunların tətbiqi ilə bağlı aparılmış araşdırmalar, reallaşdırılması üçün istifadə edilməsi məsləhət bilinən texnologiyalar barəsində irəli sürülmüş fikir və mülahizələr öyrənilmişdir.

Müşahidə metodu ilə İnformatika dərslərində intellektual oyunların müəllimlər tərəfindən dərsin hansı mərhələsində, necə tətbiq olunması kimi mühüm məqamlar diqqət mərkəzində saxlanılaraq konkret qənaətlərə gəlinmişdir.

Sorğu (müsahibə) metodu vasitəsilə İnformatika müəllimlərinin intellektual oyunların tətbiqi ilə bağlı fikirləri, ondan iş təcrübəsində hansı şəkildə istifadə etmələri, müsbət və çatışmayan cəhətləri ilə bağlı mülahizələri öyrənilmişdir.

İntellektual oyunlardan istifadənin ümumtəhsil məktəblərində İnformatika təliminin keyfiyyətinə və şagird nailiyyətlərinin yüksəlməsinə nə dərəcədə təsir göstərdiyini müəyyənləşdirmək məqsədilə planauyğun şəkildə pedaqoji eksperiment aparılmışdır. Pedaqoji eksperiment 4 mərhələdə həyata keçirilmişdir.

Birinci mərhələdə məktəb təcrübəsinin öyrənilməsi ilə bağlı həyata keçirilməsi vacib bilinən məsələlər müəyyənləşdirilmiş, sorğu materialları hazırlanmış, eksperimentə cəlb edilməsi məqsədəuyğun bilinən məktəb və fənn müəllimlərinin siyahısı götürülmüşdür. Bu mərhələni pedaqoji eksperimentin hazırlıq mərhələsi kimi də xarakterizə etmək olar. Pedaqoji eksperiment Bakı şəhəri, Qax, Balakən, Zaqatala rayonunda olan şəhər, kənd və qəsəbə məktəblərində keçirilmişdir.

İkinci mərhələ müəyyənləşdirici eksperimentdir ki, bu zaman hazırlıq mərhələsində nəzərdə tutulmuş işlər yerinə yetirilmişdir. Bu mərhələdə fənn müəllimləri ilə sorğu keçirilmiş, yoxlama (kontrol) və eksperiment siniflər müəyyənləşdirilmişdir.

Üçüncü mərhələ öyrədici eksperiment mərhələsi sayılır ki, bu zaman seçilmiş eksperiment siniflərin İnformatika müəllimləri intellektual oyunların mahiyyəti, istifadə texnologiyası ilə təlimatlandırılmaqla öz fəaliyyətlərində ondan səmərəli istifadə edilməsinə nail olunmuşdur.

Dördüncü mərhələ yoxlayıcı eksperiment mərhələsi olmaqla bu zaman eksperimentə cəlb edilən siniflərdə tətbiq edilən intellektual oyunların, özünüinkişaf etdirmə modelinin, şagirdlərin bilik və bacarıqlarının qiymətləndirilməsi üçün işlənmiş iyerarxik kriteriyalar sisteminin şagirdlərin təlim nailiyyətlərinin yüksəldilməsinə hansı dərəcədə təsir göstərməsi araşdırılmış və bundan çıxış edərək konkret nəticə və təkliflər irəli sürülmüşdür.

Tədqiqatın nəticələrinin riyazi və ststistik işlənilməsi metodu ilə istər müəyyənləşdirici, istərsə də yoxlayıcı eksperimentlərə cəlb edilən IV, VI, VIII, XI sinif şagirdlərinin sayı, onların təlim göstəricilərinin statistik nəticələri rəqəm və faizlərin köməyi ilə çıxarılmış, nəzarət və eksperiment siniflərində aparılan ilkin və növbəti kiçik summativ qiymətləndirmələr zamanı alınan nəticələr təhlil edilmiş və cədvəllərdə əks olunmuş, təklif olunan işin səmərəliliyi faktların dili ilə sübut edilmişdir.

**NƏTICƏ**

Qarşıya qoyulmuş məqsəd və vəzifələrdən, müdafiəyə təqdim edilən müddəalardan və irəli sürülmüş işçi fərziyyəsini təsdiqləyən pedaqoji eksperimentdən çıxış edərək aşağıdakı nəticəyə gəlinmişdir:

1. Oyun texnologiyalarının tərkib elementi olan intellektual oyunlar təlim prosesində şagirdin öz inkişafını, qazandığı bilik və bacarıqların keyfiyyətini yüksəltməyə xidmət edir, onun bir şəxsiyyət kimi formalaşmasına təkan verir və ən əsası təlim məzmununun, praktik bacarıqların qavranılmasını qiymətləndirir. İntellektual oyunlar vasitəsilə təlim prosesində müstəqillik, daha dəqiq desək, təlimdə muxtariyyət qazanan şagird metakoqnitiv səviyyədə düşünməyi bacaran, təlimi strateji fəaliyyət (planlama, monitorinq, standartlar əsasında özünüqiymətləndirmək) əsasında qura bilən və öyrənmə motivasiyasına malik təhsilalan kimi xarakterizə olunur.

2.İntellektual oyunlar vasitəsilə özünüqiymətləndirmə yalnız təhsil proqramı ilə bağlı deyil, həm də sosial ölçüyə malik olması baxımından çox vacib bir bacarıqdır. Özü qərar verən, ehtiyac duyduğu məlumatları özü əldə edən, nəticələrini özü dəyərləndirə bilən fərd özünüinkişaf etdirmək üçün doğru yolda olduğunu müəyyənləşdirməkdə başqalarına ehtiyac duymur. Bu baxımdan intellektual oyunlardan istifadə müstəqil, ömürboyu öyrənmənin ayrılmaz bir hissəsi kimi dəyərləndirilir. Məktəb illərində intellektual oyunlardan istifadə ilə özünüqiymətləndirmə bacarığına yiyələnən şagirdin ictimai mühitdə fəaliyyəti daha uğurlu alınır.

3.Azərbaycan pedaqoqların əsərlərində intellektual oyunlar oyun texnologiyalarının tərkib hissəsi kimi göstərilsə də, onun haqqında geniş və hərtərəfli tədqiqatlar aparılmamış, tətbiqi, üsul və vasitələri araşdırılmamışdır. Lakin xarici ölkə pedaqoqlarının tədqiqatlarında intellektual oyunların tətbiqi problemi yetərincə öyrənilmiş, ömürboyu öyrənməyə daha çox önəm verildiyindən geniş aspektdə tədqiq edilmişdir. Eyni zamanda məktəb təliminde intellektual oyunlardan istifadənin geniş imkanlara malik olduğu, təlimin keyfiyyətinə müsbət təsir göstərdiyi əsaslandırılmışdır.

4.Yalnız pedaqogika sahəsində deyil, psixologiya ilə bağlı araşdırmalarda da, intellektual oyunlardan istifadə şagird şəxsiyyətinin formalaşmasının mühüm amili, özünüqiymətləndirmə, özünüdərketmə, özünüinkişaf etdirmə, özünə nəzarət etmənin, gələcək peşə hazırlığının vacib şərti, özünəinam hissinin zəruri komponenti kimi araşdırılmış, şagirdlərdə tənqidi və yaradıcı təfəkkürün yaranması və inkişaf etdirilməsi, özünün təlim fəaliyyətinə nəzarətin təmin edilməsi və gücləndirilməsi baxımından səmərəli olduğu müəyyənləşdirilmişdir.

5.İnformatika fənninə aid mövcud proqram və dərslik komplektlərinin təhlili göstərir ki, intellektual oyunlara şagirdin nailiyyətlərinin qiymətləndirmə vasitəsi kimi sistemli yanaşılmamışdır. Belə ki, fənn proqramında (kurikulumunda) alt standartlar şəklində ifadə olunan şagird fəaliyyətləri sırasında oyun texnologiyalarından, intellektual oyunlardan istifadəyə müəyyən qədər ancaq I-IV siniflərdə rast gəlinir. Görünür, elə buna görə də intellektual oyunlar ibtidai sinifl dərsliklərdə az sayda, metodik vəsaitlərdə müəyyən qədər təqdim edilmişdir. Həmçinin aparılan məqsədyönlü müşahidəlr, sorğu materialları vasitəsilə praktik işin öyrənilməsi deməyə əsas verir ki, fənn müəllimləri intellektual oyunların mahiyyəti, tətbiqi ilə bağlı dərin biliklərə malik deyillər. İntellektual oyunların sistemli şəkildə tətbiq edilməməsinin nəticəsidir ki, şagirdlər öz bilik və bacarıqlarını praktiki fəaliyyətlərini qiymətləndirməkdə çətinlik çəkirlər.

6. İntellektual oyunlar özlüyündə geniş imkanlara malik olsa da, onun tətbiqində müəllimin nəzəri və praktik hazırlığı, intellektual oyunların oyun texnologiyalarının bir komponenti və təlim prosesinin ayrılmaz bir hissəsi kimi tətbiqi, şagirdlərin intellektual oyunlarla məlumatlandırılması kimi bəzi məqamlar nəzərə alınmalıdır. İntellektual oyunların tətbiqi nəticələrinin məqbul hecab edilməsi üçün o müvafiq metodik prinsiplərə cavab verməlidir. Belə ki, intellektual oyunların tətbiqi nəticəsində özünüqiymətləndirmə ilk növbədə etibarlı olmalı, həqiqəti əks etdirməlidir. İntellektual oyunların tətbiqi nəticələrinin etibarlılığını ölçmək bir o qədər asan olmadığından müəllim şagirdlərlə ardıcıl və davamlı hazırlıq işi aparmalıdır.

7.Informatika dərslərində intellektual oyunların tətbiqi krossvord həlli və hazırlanması, krossvordda təsvir edilmiş sözlər əsasında esse yazma, testlər əsasında onlayn yarışlar, açıq suallar, rollu səhnələşdirilmiş və işgüzar oyunlar vasitəsilə bütün məzmun xətləri ilə bağlı bilik və bacarıqların səviyyəsini müəyyənləşdirmək məqsədilə aparıla bilər. İntellektual oyun nümunələri hazırlanarkən sadədən mürəkkəbə prinsipinə əsaslnmaqla sinif səviyyəsi və gözlənilən təlim nəticələri nəzərə alınmalıdır. Bundan əlavə mövzunun mənimsənilmə səviyyəsini müəyyənləşdirmək, şagirdlərin güclü və zəif cəhətlərini ortaya qoymaq məqsədilə intellektual oyunun tətbiq edildiyi hər bir mövzunun sonunda şagirdlər oyun vasitəsilə özünüqiymətləndirmə aparmalı və yoxlanılan, qiymətləndirilən bilik və bacarıqlar, praktik bacarıqlar məqsədəmüvafiq olaraq məzmun xətlərini əhatə etməlidir. Qeyd

etdiyimiz kimi, istifadə olunan intellektual oyunlar müəllim tərəfindən, şagirdlər tərəfindən fərdi, qrup şəklində, tələbə könüllülərlə birgə hazırlana bilər.

8.Aparılan məqsədyönlü pedaqoji eksperimentin nəticələri sübut edir ki, İnformatika dərslərində intellektual oyunlardan istifadə təlim prosesinin ayrılmaz tərkib hissəsi kimi həyata keçirildikdə şagirdlərin məntiqi, yaradıcı və alqoritmik təfəkkürü inkişaf edir, kompüter, informasiya sistemləri vasitəsilə gündəlik qarşılaşdıqları problemlərin həlli üçün tələb olunan zəruri informasiya proseslərini yerinə yetirmə bacarıqları xeyli təkmilləşir, məktəblilərin praktiki fəaliyyətə, əməyə və öz təhsillərini davam etdirmələrinə hazırlanması imkanı yaranır. Ən əsası onların öz təlim fəaliyyətlərinə tənqidi yanaşmaları, özünüqiymətləndirmə bacarıqları inkişaf edir, buraxılan səhvləri vaxtında aradan qaldırmaqla qoyulmuş hədəflərə çatmaları təmin olunur.

Tədqiqatın nəticələrini daha da təkmilləşdirmək və intellektual oyunların müasir şəraitdə geniş tətbiqini həyata keçirmək üçün formalaşdırılan təkliflər bunlardır:

1.İnformatika fənninin spesifik xüsusiyyətləri nəzərə alınaraq intellektual oyunların geniş şəkildə tətbiqi üçün müxtəlif təlim vəsaitləri hazırlanmalıdır.

2.Ümumtəhsil məktəblərində şagidlərin intellektual oyunlarla işləmə bacarıqlarını formalaşdırmaq, müəllimlərin özünüqiymətləndirmə ilə bağlı metodik və praktiki hazırlığını artırmaq üçün mərkəzləşdirilmiş qaydada tədbirlər həyata keçirilməlidir.

3.İntellektual oyunlarla bağlı tapşırıqlara dərsliklərdə müəyyən qədər yer ayrılmalı, metodik vəsaitlərdə intellektual oyunların tətbiqi qaydaları ətraflı şərh olunmalıdır.

4.Müxtəlif səviyyəli, inteqrativ, interaktiv krossvordlar, işgüzar, rollu oyunların daxil ediləcəyi "Əyləncəli informatika" vəsaiti və məsələn, "İntellektual oyunlar ölkəsinə səyahət" adlı sayt nümunəsinin hazırlanması, hazırlanmış resursların (hazırlanmış krossvordlardan ibarət broşurlar, intellektual oyunlar, müxtəlif mərhələli oflayn, onlayn yarış nəticələri, inteqrativ dərslər və s.) saytda yerləşdirilməsi şagirdləri bu istiqamətdə aktiv fəaliyyətə stimullaşdırar və bu resurslardan istifadə informatika təlimi keyfiyyətinin yüksəlməsinə effektiv təsir edər;

4.Məktəblərdə beynəlxalq təcrübəyə anoloji olaraq informatika fənni üzrə müxtəlif istiqamətli kurslar keçirilərsə, respublikada İnformatika Müəllimlərinin Assosiasiyası yaradılarsa, fənnin tədrisində olan bəzi problemlər həll olunar.

**ƏDƏBIYYAT SIYAHISI**

1. https://president.az/az/articles/view/35634
2. https://president.az/az/articles/view/49932)
3. https://www.un.org/ru/events/pastevents/pdf/agenda_wsis.pdf
4. https://ikisahil.az/post/278708-reqemsal-texnologiyalar-muasir-chagirishlar-ve-imkanlar
5. http://institute-of-progressive-education-and-learning.org/elearning/elearning-educational-games/

***6.*** Ismayilova B. İ., & Ahmadov H. Q., &, & R. Z. Humbataliyev (2020) "The role of modern educational theories and computer technology in the development of intelligence." International Journal of Psychosocial Rehabilitation, Vol. 24, Issue 09, ISSN: 1475-7192, 3005-3026

7. İsmayılova, B.İ. (2017) Intellektual oyunlar: müasir vəziyyət, problemlər, perspektivlər Bakı, İnformasiya Texnologiyaları İnstitutu, İnformasiya Texnologiyaları Problemləri, №2, 87-97.

# 5E TƏLİM MODELİNİN ƏDƏBİYYAT DƏRSLƏRİNƏ TƏTBİQİ
# APPLICATION OF 5E LEARNING MODEL TO LITERATURE LESSONS

**SƏADƏT AĞAKİŞİYEVA**
Filologiya üzrə fəlsəfə doktoru Mingəçevir Dövlət Universiteti/müəllim
Təhsil
*saadat.aghakishiyeva@mdu.edu*
MINGƏÇEVIR, AZƏRBAYCAN

**SƏBİNƏ NOVRUZOVA**
Mingəçevir Dövlət Universiteti/müəllim
Təhsil
*sabina.novruzova@mdu.edu*
MINGƏÇEVIR, AZƏRBAYCAN

**XÜLASƏ**

Bu gün inkişaf edən cəmiyyət yenilikləri və inkişafı qavrayan, biliyi qəbul edib, dəyərləndirə bilən, biliyini səmərəli şəkildə istifadə edən və onu təcrübədə həyata keçirə bilən, rəqabətə davamlı insanlara ehtiyac duyur

Elm və texnologiyanın daim inkişaf edib dəyişməsi təhsil sisteminin də davamlı olaraq dəyişməsini tələb edir.

Ədəbiyyatın da səmərəli şəkildə tədrisi fərdin özünü inkişaf etdirməsinə, cəmiyyətdə effektli münasibətlər qurmasına, özünü ifadə etməsinə imkan verir. Şagirddə dinləmə, danışma, yazma və oxuma kimi bacarıqları formalaşdırmaqla yanaşı, onları milli və ümumbəşəri dəyərlərə, estetik zövqə sahib insan kimi yetişdirir.

Hal-hazırda ədəbiyyat təlimində də tətbiq edilən, son dövrlər populyarlıq qazanan bir neçə təlim texnologiyası diqqəti cəlb edir.

5E təlim modeli şagirdlərin fəal iştirakı ilə dayanıqlı (sağlam) biliyin formalaşmasına kömək edən təlim modelidir. Belə ki, müəllimlər hər zaman dərs prosesində şagirdlərin marağını cəlb etməyi, onları motivasiya etməyi və müxtəlif bacarıqlarını üzə çıxarmağı qarşılarına bir hədəf olaraq qoyur.

Bu təlim üsulunda şagird materialı əzbər yolu ilə deyil, özü araşdırıb, tətbiq edərək öyrəndiyi üçün onda qalıcı öyrənmə formalaşmış olur.

Açar sözlər: təlim texnologiyası, ədəbiyyat, səmərəli tətbiq, maraqoyatma

**Abstarct**

Today's developing society needs competitive people who can perceive innovations and development, who can accept and value knowledge, who can effectively use their knowledge and put it into practice.

The constant development and change of science and technology requires the continuous change of the education system.

Effective teaching of literature also allows the individual to develop himself, establish effective relationships in society, and express himself. In addition to forming the skills of listening, speaking, writing and reading in students, it also educates them as people with national and universal values and aesthetic taste.

At present, several learning technologies that have gained popularity in recent times, which are also applied in literature education, attract attention.

The 5E learning model is a learning model that helps the formation of sustainable (sound) knowledge with the active participation of students. Thus, teachers always set themselves as a goal to attract the interest of students, motivate them and reveal their various skills in the teaching process.

In this teaching method, the student learns the material not by memorization, but by researching and applying it, so permanent learning is formed in him.

Key words: educational technology, literature, effective application, engage

## GİRİŞ

Ədəbiyyat düşüncə və hissləri müxtəlif şəkildə ifadə etmə bacarığıdır. Ədəbiyyat humanitar elmlərin əsasıdır, buna görə də bu elmlərin inkişafında, yaradıcı və tənqidi təfəkkürün inkişafında mühüm əhəmiyyət kəsb edir. Ədəbiyyat və təhsil, insan və cəmiyyət arasında əlaqəyə nəzər yetirdikdə bir-birini tamamlayan və bir-biri ilə əlaqədə olan iki anlayış olduğunu görürük. Ədəbiyyat sözünün mənası olan "ədəb", "mərifət" sözləri də əslində tərbiyə, təhsil mənasını ifadə edir. Xalqımız ədəbiyyat nümunələrini ilk yaratmağa başladıqları dövrdən məqsədləri gənc nəsilləri tərbiyə etmək, onları öyrətmək olmuşdur. yaddan çıxarmamalıyıq ki, ədəbiyyatın əsas mövzusu insandır. İnsanın mübarizəsi, ətraf aləmə qarşı münasibəti, hissləri, xəyalları və b. ədəbiyyatla təhsilin ortaq predmetidir.

Bu gün inkişaf edən cəmiyyət yenilikləri və inkişafı qavrayan, biliyi qəbul edib, dəyərləndirə bilən, biliyini səmərəli şəkildə istifadə edən və onu təcrübədə həyata keçirə bilən, rəqabətə davamlı insanlara ehtiyac duyur. Elm və texnologiyanın daim inkişaf edib dəyişməsi təhsil sisteminin də davamlı olaraq dəyişməsini tələb edir. Son illərdə ənənəvi təhsildən fərqli olaraq şagirdi mərkəzə alan, şagirdyönümlü, tələbəyönümlü təhsil sistemi daha çox diqqəti cəlb etməyə başlayıb. Cəmiyyətin dəyişən tələbləri ilə ayaqlaşmaq üçün təkcə mükəmməl biliyə sahib olmaq kifayət deyil. Mükəmməl elmi biliklə yanaşı bu bilikləri təcrübədə tətbiq etməyi bacarmaq, biliyə yaradıcı münasibət də lazımdır.

Ədəbiyyatın da səmərəli şəkildə tədrisi fərdin özünü inkişaf etdirməsinə, cəmiyyətdə effektli münasibətlər qurmasına, özünü ifadə etməsinə imkan verir. Şagirddə dinləmə, danışma, yazma və oxuma kimi bacarıqları formalaşdırmaqla yanaşı, onları milli və ümumbəşəri dəyərlərə, estetik zövqə sahib insan kimi yetişdirir.

Elm və təhsil istiqamətində aparılan tədqiqatlar nəticəsində təlimə yeni yanaşmaları ortaya çıxarmışdır. Bu tədqiqatlar həm təlimin məzmununu, həm də öyrətmə və öyrənmə mühitini əhatə edib (Hüseynoğlu S. 2023). Ədəbiyyatın bir fənn kimi tədrisindən bu günə kimi ədəbiyyat təliminin məzmunu daim inkişafda olub. Təlimin məzmununda baş verən dəyişikliklər təlim texnologiyalarında da inkişafı zərurətə çevirmişdir. Hal-hazırda ədəbiyyat təlimində də tətbiq edilən, son dövrlər populyarlıq qazanan bir neçə təlim texnologiyası diqqəti cəlb edir. Onlar aşağıdakılardır:

1. Fəal (interaktiv) təlim;
2. Tənqidi Təfəkkürün İnkişafında Mütaliə və Yazı (TTİMY);
3. Əməkdaşlıqla təlim;
4. Layihələr metodu ilə təlim;
5. Modulla təlim;
6. Şəxsiyyətyönümlü təlim;
7. Nəticəyönümlü təlim;
8. Debat;
9. Keys metod;
10. 3E, 5E, 7E təlim modelləri və s (Hüseynoğlu S. 2023).

Bu təlim texnologiyalarının üstünlüyünün səbəbi bir sıra tələblərə cavab verməsidir. Bu tələblər hansılardır?

Birincisi, materialın mənimsənilməsi üçün şagirdlərə müstəqillik verməsidir;

İkincisi, şagirdləri müstəqil fəaliyyətə həvəsləndirməlidir;

Üçüncüsü, şagirdlərdən müxtəlif mənbələrlə işləməyi tələb etməlidir;

Dördüncü, şagirdlərin idrak fəaliyyətinin müxtəlif sahələr üzrə tətbiqinə imkan yaratmalıdır;

Nəhayət beşinci, qrup daxilində və qruplar arasında qarşılıqlı fəaliyyətin səmərəli təşkilinə şərait yaratmalıdır (Hüseynoğlu S. 2023).

Ədəbiyyatın səmərəli tədrisində istifadə edilən təlim texnologiyalarının bir neçəsi ilə tanış olaq:

Layihələr metodu ilə təlim: Bu metodun əsas mahiyyəti odur ki, şagirdlər plan əsasında materialları toplayır, öyrənir, müzakirələr aparır, ümumiləşdirmələr edir və alınan nəticələri təqdimat hazırlamaqla maraqlı tərəflərə nümayiş etdirir. Burada əsas diqqət şagirdin məqsədəuyğun fəaliyyəti ilə onun şəxsi maraqlarının uyğunlaşdırılmasıdır.

Modulla təlim: Modulla təlim texnologiyası (burada modul - latınca ölçü, "kiçik ölçü" deməkdir, tamın bitkin hissələrdən - bloklardan ibarət olmasını ifadə edir) bu təlim texnologiyası təlim materialının məzmununun müstəqil və yaradıcı şəkildə öyrənilməsi üçün onun daha bitkin və minimal

hissələrə bölünməsini, hər hissəni öyrənməyin məqsədini, təlim nəticələrini, faktiki öyrənmə materialını, oradakı məzmunu müstəqil öyrənməyin metod və vasitələrini, Təlimatını, əməkdaşlıq şəraitində onu mənimsəməyin və necə mənimsənilməsini yoxlamağın, nəzarət və özünənəzarət etmənin, qiymətləndirmənin yollarını bloklara bölməklə işi həyata keçirməyi nəzərdə tutur.

Keys metod: Təlim texnologiyası (burada case –hadisə, hal, vəziyyət, study - öyrənmə) bu texnologiyaya konkret situasiyanın, faktın, hadisənin öyrənilməsi də deyilir. Bu texnologiya konkret situasiyanı, nümunəni təhlil etdirməklə başqalarının keçdiyi yolla səni də aparır və ondan nümunə götürtməklə, o nümunələrə tənqidi yanaşmaq və təhlil etdirməklə səni həmin problemin həllinə daha yaxşı hazırlayır.

**5E təlim modelinin ədəbiyyat dərslərində səmərəli tətbiqi.**

5E təlim modeli şagirdlərin fəal iştirakı ilə dayanıqlı (sağlam) biliyin formalaşmasına kömək edən təlim modelidir. Belə ki, müəllimlər hər zaman dərs prosesində şagirdlərin marağını cəlb etməyi, onları motivasiya etməyi və müxtəlif bacarıqlarını üzə çıxarmağı qarşılarına bir hədəf olaraq qoyur. 5E modeli də digər fəal təlim modelləri kimi şagirdlərdə idrak fəallığını formalaşdırmağı və şagirdlərin sual verən, araşdıran bir şəxsiyyət kimi yetişməsini hədəf alır. Bu təlim modelini ədəbiyyat dərslərində həm lirik əsərlərin, həm epik və dramatik əsərlərin tədrisində rahatlıqla tətbiq etmək olar. Belə ki, ədəbiyyat dərslərində şagirdlərin məntiqi, tənqidi və yaradıcı təfəkküründün inkişaf etdirilməsi də hədəf olaraq qoyulur. 5E təlim modeli bunun üçün əlverişli zəmin yaradır.

5E təlim modeli beş mərhələdən ibarətdir:

1.Motivasiya (Engage) öyrənmənin ilk mərhələsidir. Bu mərhələdə müəllim öyrəniləcək mövzu ilə bağlı şagirdlərin ilkin biliklərini öyrənir və onların marağını yeni mövzuya cəlb etməyə çalışır. Bu zaman müəllim marağı cəlb etmək üçün müxtəlif vasitələri sinfə gətirə bilər. Şagirdlərə onların marağına səbəb olacaq, diqqətlərini cəlb edən müxtəlif suallar verir, lakin bu suallarda məqsəd düzgün cavabı tapmaq deyil. Buradakı məqsəd şagirdlərin əvvəlki biliklərinə və təcrübələrinə əsaslanaraq düşüncələrini ifadə etməyi öyrənmələridir.

Şagirdlərdə maraq oyatmaq üçün açıq tipli suallar verə bilər və ya ilkin bilikləri ilə esse, inşa yazmaqları istəyə bilər. Əgər şagird problemlə bağla nə isə bilmirsə, müəllim onlara ilki təsəvvürlərini qeyd etmələrini tapşıra bilər. Bu şagirdlərdə həm də yazmaq və fikir irəli sürmək bacarığını formalaşdırır. Məsələn: IX sinifdə müəllim Abdulla Şaiqin "Anabacı" hekayəsinin tədrisinə başlayarkən uşaqların marağını cəlb etmək üçün uşaqlara aşağıdakı sualları verə bilər:

a. Şərəf və ləyaqət anlayışları sizə nə ifadə edir?

b. İnsan şərəf və ləyaqətini qorumaq üçün necə hərəkət etməlidir? Fikirlərinizi əsaslandırmağa çalışın.

c. Bu yaşınıza kimi kiməsə təmənnasız kömək etmisinizmi və ya sizə kömək edən olubmu?

d. Ətrafınızda oxuyub-yazmaqda çətinlik çəkən insanlar varmı?

2. Tədqiqat (Explore): şagirdlərin diqqəti cəlb edilib, yeni mövzuya maraq oyandıqdan sonra bu mərhələdə şagirdlər yeni öyrənəcəkləri mövzunu kəşf etməyə başlayırlar. Bu mərhələ şagirdlərin ən aktiv olduğu bölmədir. Onlar adətən qrup halında işləyirlər. Şagirdlərlə birgə çalışaraq, tədqiqat apararaq, müəllimin yönləndirdiyi resurslarla problem həll etmək üçün fərziyyələr irəli sürürlər. Mənbələr və resursları axtarıb, onun əsasında plan hazırlayırlar. Müəllimin bu mərhələdəki fəaliyyəti isə yalnız şagirdlərə istiqamət verməkdən ibarətdir. Dərsin gedişində ən çox vaxt tədqiqat mərhələsinə ayrılır. Həm müəllim, həm də şagirdlər vaxtdan düzgün istifadə etməlidirlər. Şagirdlərin tədqiqat zamanı fikir mübadiləsi etməsi yeni ideyaların aşkarlanmasına səbəb ola bilər. Bu mərhələdə müəllim-şagird əməkdaşlığı da ön plana çıxır. Məsələn: Qısa müddət ərzində "Anabacı" hekayəsinin məzmunu ilə tanış olmaq üçün müxtəlif oxu (proqnozlaşdırılmış oxu-1, proqnozlaşdırılmış oxu-2 ) və ziqzaq üsulundan istifadə edilə bilər. Sonra qruplara problemin həlli ilə bağlı suallar təqdim olunur. Nümunə üçün: 1.Obrazların (Anabacı, yazıçı–əhvalatı danışan) xüsusiyyətləri ilə bağlı əsaslandırılmış mühakimələr yürüdün: Bu obraz haqqında nə düşünürsünüz? Obraza münasibətiniz necədir? Bu obrazda ən çox diqqətinizi nə cəlb etdi? Siz bu obrazların yerinə olsaydınız nə edərdiniz? Anabacının sadə bir "məsələni" "anlada bilməməsinin" səbəbini nədə görürsünüz? Əhvalatı danışanın Anabacını unuda bilməməsinə səbəb, sizcə, nə idi? Seçdiyiniz bir obrazı "Kublaşdırma"dan istifadə etməklə araşdırın.

3. İzahetmə (Explain): Bu mərhələ şagirdlərin yeni bilikləri qəbul etməsi və müəllimin tərəfindən ehtiyac anında, bilikləri mənimsəməkdə çətinlik çəkərsə izahın verilməsi ilə xarakterizə olunur. Hər

bir qrup və ya şagird öz işini təqdim edir və müzakirələr aparılır. Bu vaxt müəllim şagirdlərə köməkçi suallar verərək yeni cavablar alar, həm də özü izah verə bilər. Müəllim kiçik mühazirədən istifadə istifadə etməklə yanaşı, film yaxud, video və hər hansı bir tədqiqat işindən bir parçanı göstərərək şagirdlərə fikirlərini tamamlamağa kömək edəcək daha başqa maraqlı üsullara əl ata bilər. Nümunə üçün, "Anabacı" hekayəsi, hekayədə hadisənin cərəyan etdiyi dövrlə bağlı müəllim şagirdlərə müəyyən izah verdikdən sonra, ö dövrü əks etdirən kiçik bir video da nümayiş etdirə bilər.

4. Dərinləşdirmə (Elaborate): Şagirdlər əldə etdikləri bilik və təcrübəni başqa problemə və hadisəyə tətbiq edirlər. Məsələn, təqdimat hazırlaya, plan tərtib edə, əsəri hissələrə ayırıb adlandıra və başaq əsərlərlə sintez edə bilər. Kollektivlə birlikdə "Anabacı" hekayəsi hissələrə ayrılır. Sonra hər qrupa müəyyən hissəni adlandırıb, yaradıcı nəql etmək tapşırılır. "Anabacı obrazı mənim həyata baxışıma necə təsir etdi" yığcam esse yazıla bilər.

5. Qiymətləndirmə (Evaluate): Bu mərhələdə şagirdlər köhnə biliklər ilə yenilərini müqayisə edir. Təcrübələrini qrupda və sinifdə digər şagirdlərlə bölüşür.

5E öyrənmə digər fənlərlə əlaqələr quran, yaradıcılıq və aktiv öyrənmə imkanı verən və məsuliyyət götürmə qabiliyyətini təmin edən, sual vermə və araşdırma bacarıqlarını inkişaf etdirən bir üsuldur. Konstruktivist 5E öyrənmə modeli, şagirdin məktəbdənkənar həyatı və sinifdəki həyatı arasında əlaqə yaradaraq onların aktiv olmasını təmin edir. Bu metod şagirdin və ya tələbənin marağını cəlb edərək onu fəaliyyətə cəlb edir (Campbell, M. A. 2006). Bu təlim üsulunda şagird materialı əzbər yolu ilə deyil, özü araşdırıb, tətbiq edərək öyrəndiyi üçün onda qalıcı öyrənmə formalaşmış olur. 5E modeli tələbələrə yeni anlayışlar kəşf etməyə və onları əvvəlkilərə müqayisə edib uyğunlaşdırmağa imkan verir. Nəticədə, tələbələr müəyyən bir problem haqqında öz fikirləri formalaşır.

5E modeli tələbələri öyrənmənin müxtəlif mərhələləri vasitəsilə bir mövzuya cəlb edir, bu mövzuda araşdırma aparmağa həvəsləndirir, problemmi həlli yollarını təqdim etməyi öyrədir və əldə etdiyi yeni biliyi müxtəlif sahəyə tətbiq etməyə, onu qiymətləndirməyə sövq edir (Wilder, M., & Shuttleworth, P. Cell 2005)

**TƏDQIQAT METODU**

Tədqiqat işində mövzunun öyrənilməsi və problemin təhlili zamanı analitik metodlardan istifadə edilmişdir. Bu zaman tədqiqata cəlb edilən faktlar, nəzəri məlumatlar və praktiki bacarıqların öyrənilməsində sistemli təhlil və şərh üslubları əsas götürülmüşdür.

**NƏTİCƏ**

"İnformasiya əsri" dediyimiz çağımızda informasiya əldə etmək və öyrənmək prioritet məsələyə çevrilib. Bu gün vacib olan, əldə edilən məlumatı şüurda sistemləşdirərək mövcud məlumatlardan yeni məlumatlara çatmaq və yeni nəticələr çıxarmaqdır. Ona görə də məktəblərdə ədəbi əsərləri, ədəbi anlayışları şagirdlərə diktə etməyin, əsərləri əzbərlətməyin müasir təhsil anlayışında yeri yoxdur. Dövr artıq oxuduğu əsərdən nəticə çıxarmağı bacaran. Onu həyatına tətbiq edən, hərtərəfli, humanist, tolerant şəxsiyyət yetişdirməyi tələb edir. Yeni yanaşma modeli olan 5E təlim modeli bu tələbləri qarşılayır. 5E təlim modeli nəinki texniki elmlərdə, həm də humanitar elmlərdə də uğurla tətbiq edilə bilər. Bu gün bu sahədə geniş tədqiqatların aparılmasına, bu təlim modelinin tətbiqi təcrübəsinin öyrənilməsinə ehtiyac duyulur. Bütün bunlar əsrimizin tələb etdiyi keyfiyyətlərə sahib fərdlərin yetişdirilməsi baxımından son dərəcə əhəmiyyətlidir.

**ƏDƏBİYYAT SİYAHISI**

1. Campbell, M. A. (2006)The Effects of the 5E learning cycle model on students' understanding of force and motion concepts // – Master thesis. – Florida: Millersville University.

2. Hüseynoğlu S. (2023)Təlim texnologiyası: keys-metod //Azərbaycan dili və ədəbiyyatın tədrisi, – Bakı, №1 (275), – s. 23-37

3. Mehrabov A.(2010)Təhsildə konstruktiv təlim, onun səciyyəvi xüsusiyyətləri// http://www.idrak-m.com/?p=1640

4. Şentürk C. (2010)Yapılandırmacı yaklaşım ve 5E öğrenme döngüsü modeli// Eğitim-bir-sen. №17, – s. 58-61

5. Wilder, M., & Shuttleworth, P. Cell (2005) Inquiry: A 5E Learning Cycle Lesson// Science Activities,. 41(4), – s. 37-43.

# MÜASIR DÖVRDƏ TƏHSILIN MƏNƏVI-ƏXLAQI CƏHƏTDƏN QIYMƏTLƏNDIRILMƏSI

**Qəniyeva Şəfiqə**
Azərbaycan Dövlət Pedaqoji Universiteti təhsildə sosial psixoloji xidmət
Bakı/Azərbaycan

**Şirinova Aynur**
TDV Atatürk liseyi sinif rəhbəri
Sumqayıt/Azərbaycan
Aynursirinova56@gmail.com

**Xülasə**

Müasir dövrün qarşısında duran ən vacib problemlərdən biri də sağlam düşüncəli, dünyagörüşlü, yüksək əxlaqi keyfiyyətlərə malik şəxslər yetişdirməkdir. Bunun üçün daha kiçik yaşlardan düzgün tərbiyə prosesini təşkil etmək lazımdır. Tərbiyə prosesinin düzgün təşkili üçünsə, insanların yaş və psixoloji xüsusiyyətləri nəzərə alınmalıdır.

İnsanların əxlaqi-mənəvi keyfiyyətlərin formalaşmasında təhsil sisteminin xüsusi rolu vardır. Təhsil bir cəmiyyətin formalaşmasında ən önəmli faktorlardan biridir. Təhsil cəmiyyətin iqtisadi, siyasi, mədəni, mənəvi və əxlaqi cəhətdən inkişafına təkan verir. Şəxsiyyətin formalaşdırılması və inkişafında təhsil, təlim və tərbiyənin rolu hələ bağça yaşından açıq sezilir. Dünyanın distant və online təhsilə diqqətini yönəltdiyi günümüzdə dünya lideri olan ölkələr belə öncəliyi üz-üzə təhsilə verir. Burda həm sosialoji, həm də psixoloji amillər əsas rol oynayır. Düzgün müəllim yönləndirilməsi, yaşıdlarla ünsiyyət, mühüt bu amillərdən bəzilәridir. Yüksək təhsilli şəxslər yetişdirmək kimi yüksək əxlaqi mənəvi keyfiyyətə malik şəxslər yetişdirmək də dövlətin təhsil siyasətinin əsasını təşkil edir.

**Açar sözlər:** Təhsil, əxlaq tərbiyəsi, inkişaf

**Summary**

One of the most important problems facing the modern era is to educate people with sound thinking, worldview, and high moral qualities. For this, it is necessary to organize the correct educational process from an early age. For the correct organization of the education process, people's age and psychological characteristics should be taken into account.

The education system has a special role in the formation of moral and spiritual qualities of people. Education is one of the most important factors in the formation of a society. Education promotes economic, political, cultural, spiritual and moral development of society. The role of education, training and upbringing in the formation and development of personality is clearly felt from the kindergarten age. Today, when the world focuses on distance and online education, the countries that are world leaders give priority to face-to-face education. Both sociological and psychological factors play a key role here. Proper teacher orientation, communication with peers, environment are some of these factors. Education of highly educated people is the basis of the state's education policy.

Key words: Education, moral education, development

## Giriş

Təhsil, təlim və tərbiyə hər bir dövlətin istər iqtisadi, istər siyasi, istərsə də sosial-mədəni inkişafının əsasını təşkil edir, eyni zamanda həmin cəmiyyətin dəyərlərini inkişaf etdirərək formalaşdırır. Hər bir dövlət bu xüsusiyyətlərini nəzərə alaraq təhsilə xüsusi diqqət yetirməlidir. Təhsilin əsas vəzifələrindən biri cəmiyyət üçün yararlı, dünyagörüşlü və yüksək əxlaqlı şəxsiyyətlər yetirməkdir. Əxlaq cəmiyyətin bizim qarşımıza qoyduğu tələb, qayda-qanunlar toplusudur. Əxlaq tərbiyənin növlərindən biri olmaqla bizim davranışlarımızın tənzimlənməsini təmin edir.

Müstəqilliyimiz bərpa olunduqdan sonra təhsil sisteminin hüquqi və normativ cəhətdən gücləndirilməsi, humanistləşməsi, demokratikləşməsi, məzmun və keyfiyyət baxımından yeniləşməsi, maddi-texniki təminatının inkişafı sahəsində atılan uğurlu addımlar hələ də ardıcıl formada davam etdirilir. Müasir təhsil sistemimiz dünya təshil sisteminə inteqrasiya etmişdir və təhsildə yeni modellərin gətirilməsi xüsusilə diqqəti cəlb edir. Bu yeni modellərin əsasını da məhz dünya təcrübəsi,

birdəfəlik təhsildən fasiləsiz təhsil prinsipinə keçid ideyaları təşkil edir. Təhsil sisteminin inkişafı üçün bir sıra islahatlar həyata keçirilir ki, bu islahatlarda Avropaya meyillilik özünü göstərir. Dünyanın çox ölkəsində təhsillə bağlı məsələlərin həyata keçirilməsinə bir sıra beynəlxalq təşkilatlar dəstək verirlər. Bu təşkilatlara Avropa Təhsil fondu, Avropa Elm fondu, Evrika fondu, NATO-nun elm proqramı və s. aid edə bilərik. Lakin Avropa alimlərinin bir çoxu Avropa modellərinin tamlığını qəbul etmirlər. Onun əsas cəhəti kimi isə bu sistemin insan yönümlü deyil, iqtisadi yönümlü olmasını söyləyirlər.

Dövlətimizdə uşaq və gənclərə dövlət səviyyəsində qayğının əsası Ümumilli lider Heydər Əliyev tərəfindən qoyulmuşdur. O, hər zaman gənclərin inkişafını dəstəkləyər, onların xaricdə təhsil almalarına kömək edər, gənc mütəxəssislərin öz sahələrində irəliləməsinə yardımçı olar, hər il ali məktəblərə qəbul olan gənclərlə görüşlər keçirdərdi.

Müasir dövrümüzdə məktəblərdə uşaqlarda ana dili və ədəbiyyatının tədirisi formalarını daha da formalaşdırmaq uşaqlarda bir sıra əxlaqi keyfiyyətlərin-mədəniyyət, vətən sevgisi, dünyagörüş, məhəbbət və s.-in inkişafına təkan verir. Mənsub olduğun ədəbiyyatını, mədəniyyətini dərindən öyrənmək bie insan üçün önəmli xüsusiyyətdir.

Ümumi təhsil müəssisələri gənclərin bir şəxsiyyət kimi formalaşmasında mühim rola malikdir. Müəssisələr vətənpərvərlik tərbiyəsi üçün önəmli işlər görmüşlər. Vətənpərvərlik tərbiyəsi prosesini təmin etmək üçün müxtəlif metodlardan istifadə etmək və işin səmərəliliynə nail olmaq lazımdır.

Təhsil müəssisələri insanların bir çox mənəvi keyfiyyətlərə yiyələnməsinə əsaslı təsir göstərir. Onların arzu və istəkləri, istəkləri, tələb və meylləri formalaşır.

Yuxarıda qeyd etdiyimiz kimi təhsil siyasətində əxlaq tərbiyəsinin rolu mühümdür. Əxlaq təhsili cəmiyyəti daha yaxşı bir yerə çevirmək üçün güclü mənəvi zəmin təmin etməyə və passiv bir vəziyyətdə mənəvi dəyərlər üçün davranış formaları yaratmağa yönəlmiş rəhbər tədqiqatlar kimi müəyyən edilə bilər. Müxtəlif ölkələr əxlaq tərbiyəsinə dair fərqli tərzlər irəli sürür. Məsələn Finlandiyada hələ ibtidai sinifdə şagirdlər əxlaq tərbiyəsi dərsləri tədris edilir. Müxtəlif müsəlman ölkələrdə də davranışlar, əxlaq tərbiyəsi, nizam-intizam qaydaları kimi dərslərin tədris olunduğunu görə bilərik.

NƏTİCƏ. Azərbaycanda bugün bu tip dərslər orta məktəbdə tədris olunmur. Lakin ehtiyac duyulur. Təşkilat saatı üçün təyin olunmuş mövzular əlbəttə ki önəmlidir. Lakin əlavə olaraq şagirdlərə doğru davranış, ünsiyyət və sairə kimi əsas özəllikləri aşılamaq üçün dərsə gərək var. Əlbəttə bugün dərsliklərdə öyrədici mətnlərlə yanaşı tərbiyəvi mətnlər də var. Sadəcə milli dəyərləri nəsildən-nəsilə ötürmək və hərtərəfli şəxsiyyət yetişmək üçün bizcə kifayət deyil.

ƏDƏBİYYAT SİYAHISI

1. Xəlil Ekşi karakter eğitimi
2. Medaim Yanık uşaq tərbiyə edərkən
3. Fərrux Rüstəmov Psixologiya

# ERKƏN UŞAQLIQ TƏHSILINDƏ TƏRBIYƏÇI-UŞAQ MÜNASIBƏTLƏRININ KEYFIYYƏTI: MÜNASIBƏTLƏR MODELLƏRININ ƏHƏMIYYƏTI

**FIDAN, BAYRAMOVA**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Məktəbəqədər təhsil /pedaqogika
*fidanbayramova1990 @gmail.com*
BAKI, AZƏRBAYCAN

XÜLASƏ

Bu məqalə erkən uşaqlıq təhsilində tərbiyəçi-uşaq münasibətlərinin keyfiyyətinin kritik rolunu araşdırır, münasibətlər modellərinin əhəmiyyətini vurğulayır. Bu tədqiqatın məqsədi uşaq bağçası tərbiyəçilərinin və uşaqların şəxsiyyət mərkəzli bir yanaşma əsasında münasibətləri haqqında təsəvvürlərini araşdırmaq və onlar arasındakı münasibətlərin nümunələrini təsvir etməkdir. Əvvəlki tədqiqatlar güclü tərbiyəçi-uşaq əlaqələrinin uşaqların inkişafına müsbət təsirini müəyyən etsə də, bu iş daha dərindən araşdırılır və bu əlaqələr daxilində qarşılıqlı əlaqə nümunələrinin nəticələrə necə təsir etdiyini araşdırır. Məqalədə yaxınlıq, münaqişə və asılılıq kimi amillərin zamanla necə dəyişdiyi və bu dalğalanmaların uşağın sosial, emosional və akademik trayektoriyasını necə formalaşdırdığı araşdırılır. Tədqiqat gənc uşaqlarda öyrənmə və rifahı optimallaşdırmaq üçün tərbiyəçi-uşaq münasibətlərində xüsusi nümunələrin təşviq edilməsinin vacibliyinə işıq salır. Güclü tərbiyəçi-uşaq əlaqələrinin müsbət təsirini vurğulayan mövcud tədqiqatlara əsaslanaraq, bu tədqiqat bu əlaqələrdəki dinamik qarşılıqlı əlaqənin uşaqların inkişafını necə formalaşdırdığını araşdıraraq daha da dərinləşdirir. Təhlil yaxınlıq, münaqişə və asılılıq nümunələrinin zamanla necə dəyişdiyini və bu dəyişikliklərin uşağın sosial, emosional və akademik trayektoriyasına necə təsir edə biləcəyini araşdırır. Bu nümunələri tədqiq etməklə, tədqiqat tərbiyəçilərin tərbiyəçi-uşaq münasibətlərində spesifik, müsbət nümunələri necə inkişaf etdirə biləcəyinə işıq salır. Bu, öz növbəsində, öyrənmə mühitini optimallaşdıra və kiçik uşaqların ümumi rifahını təşviq edə bilər. Məqalə tərbiyəçilərə öz bağçalərində bu mühüm münasibət modellərini tanımaqda və inkişaf etdirməkdə dəstək olmağın vacibliyini vurğulamaqla yekunlaşır.

**AÇAR SÖZLƏR: tərbiyəçi-uşaq münasibətləri, erkən uşaqlıq təhsili, uşaq inkişafı**

This article examines the critical role of the quality of teacher-child relationships in early childhood education, emphasizing the importance of relationship models. The purpose of this study is to explore the perceptions of kindergarten teachers and children about their relationship based on a person-centered approach and to describe patterns of relationships between them. While previous research has identified the positive impact of strong caregiver-child relationships on children's development, this work digs deeper and examines how the patterns of interaction within these relationships influence outcomes. The article examines how factors such as intimacy, conflict, and dependency change over time and how these fluctuations shape a child's social, emotional, and academic trajectory. Research highlights the importance of fostering specific patterns in the caregiver-child relationship to optimize learning and well-being in young children. Building on existing research that highlights the positive impact of strong caregiver-child relationships, this study goes further by examining how the dynamic interactions within these relationships shape children's development. The analysis examines how patterns of intimacy, conflict, and dependence change over time and how these changes may affect a child's social, emotional, and academic trajectory. By examining these patterns, research sheds light on how educators can develop specific, positive patterns in the educator-child relationship. This, in turn, can optimize the learning environment and promote the overall well-being of young children. The article concludes by emphasizing the importance of supporting educators in recognizing and developing these important relational patterns in their kindergartens.

KEY WORDS: teacher–child relationships, children's perspectives, early childhood education

## GIRIŞ

Erkən uşaqlıq təhsilinin real dünyasında müvəffəqiyyətli öyrənmə və inkişafın təməli təkcə kurikulum və resurslarda deyil, həm də pedaqoq-uşaq münasibətlərinin keyfiyyətindədir. Bu mühüm əlaqə, uşaqların emosional, sosial və akademik cəhətdən inkişaf edə biləcəyi təhlükəsiz, tərbiyəvi mühit yaradır. Müsbət tərbiyəçi-uşaq münasibəti etibar, hörmət və anlayış telləri ilə toxunmuş bir sənət əsəri kimidir. Bu mövzuları inkişaf etdirən tərbiyəçilər uşaqların özlərini təhlükəsiz, dəyərli hiss etdikləri və maraqlarını araşdırmaq üçün gücləndikləri məşğələ otaqları yaradırlar. Bu təhlükəsizlik hissi uşaqlara risk almağa, təcrübə keçirməyə və nəticədə effektiv öyrənməyə imkan verir. Erkən uşaqlıq illəri, təqribən doğumdan səkkiz yaşa qədər, uşağın sosial, emosional və intellektual inkişafı üçün zəmin yaratmaq üçün əsas dövrdür. Bu müddət ərzində bağça mühitindəki təcrübələr uşağın şəxsiyyətinin formalaşmasında həlledici rol oynayır. Bu təcrübələr arasında tərbiyəçi və uşaq arasındakı əlaqənin keyfiyyəti xüsusilə təsiredici amil kimi önə çıxır. Güclü pedaqoq-uşaq münasibətinin faydaları çox genişdir. Erkən uşaqlıq dövründə tərbiyəçilərin və uşaqların bir-biri ilə qarşılıqlı əlaqədə olduğu hər an müsbət münasibətlərin inkişafı üçün bir fürsətdir. Tərbiyəçilər uşaqlarla müsbət münasibətlər qurmaq üçün müxtəlif strategiyalardan istifadə edə bilərlər. Uşaqları dinləmək, onlarla göz təması qurmaq və kiçik uşaqlarla bir çox təkbətək, üz-üzə ünsiyyət qurmaq kimi tərbiyəçi davranışları təhlükəsiz tərbiyəçi-uşaq münasibətlərini təşviq edir. Uşaqlarla xoş, sakit səslərdən və sadə dildən istifadə etməklə danışmaq və uşaqları valideynləri ilə bağçaya gələndə səmimi salamlamaq tərbiyəçilər və uşaqlar arasında etibarlı münasibətlərin qurulmasına kömək edir.

Geniş tədqiqatlar davamlı olaraq güclü tərbiyəçi-uşaq bağlarının uşağın inkişafının müxtəlif aspektlərinə, o cümlədən akademik nailiyyətlər, sosial səriştə, emosional rifah və özünü tənzimləmə kimi müsbət təsirini nümayiş etdirmişdir. Bununla belə, bu əlaqələr daxilindəki dinamikaları araşdıraraq daha dərin bir anlayış əldə etmək olar. Bu məqalə sadə "yaxşı" əlaqələr anlayışından kənara çıxır və bunun əvəzinə əlaqə nümunələri konsepsiyasına diqqət yetirir.

Münasibət nümunələri konsepsiyası tərbiyəçi-uşaq qarşılıqlı əlaqəsinin keyfiyyətinin statik olmadığını qəbul edir. O, zaman keçdikcə dəyişir, yaxınlıq, münaqişə və asılılığın unikal qarşılıqlı təsiri ilə xarakterizə olunur. Bu nümunələr uşağın temperamenti, tərbiyəçiin yanaşması və bağça fəaliyyətinin spesifik konteksti kimi amillərdən asılı olaraq dəyişə bilər. Bu məqalə, əlaqə modellərindəki bu dalğalanmaların uşağın sosial, emosional və akademik böyüməsinə necə təsir etdiyini araşdırır. (Bodrova, E., & Leong, D. J., 2007)

Münasibət nümunələrinin əhəmiyyətini dərk etməklə, tərbiyəçilər öz bağçalarında spesifik, müsbət qarşılıqlı əlaqələri inkişaf etdirmək səlahiyyətinə malik ola bilərlər. Bu, öz növbəsində, öyrənmə mühitini optimallaşdıra və kiçik uşaqların ümumi rifahını təşviq edə bilər. Bu məqalə tərbiyəçi-uşaq münasibətləri nümunələri ilə bağlı araşdırmaları araşdırır, bu nümunələrin necə formalaşdığını, uşaqlara necə təsir etdiyini və pedaqoqların şagirdləri ilə tərbiyəvi və dəstəkləyici qarşılıqlı əlaqələri necə inkişaf etdirə biləcəyini araşdırır. (Hamre, B., & Pianta, R., 2005) Məqsəd təkcə akademik öyrənməni təşviq etməklə yanaşı, həm də təhlükəsizlik, aidiyyət və emosional dəstək hissini inkişaf etdirən, nəticədə gənc uşaqlarda optimal böyümə və inkişafa töhfə verən bağça otaqları yaratmaq üçün tərbiyəçiləri dəyərli anlayışlarla təchiz etməkdir.

Tədqiqatlar ardıcıl olaraq göstərir ki, tərbiyəçi-uşaq münasibətlərinin keyfiyyəti erkən uşaqlıq təhsili zamanı uşağın inkişafında mühüm rol oynayır. Bununla belə, bu əlaqələr daxilində əlaqə nümunələri anlayışını tədqiq etməklə daha dərin bir anlayış əldə etmək olar. Tərbiyəçi-uşaq münasibətləri statik deyil. Onlar yaxınlıq, münaqişə və asılılığın unikal qarşılıqlı təsiri ilə xarakterizə olunan zamanla dəyişir.Səmimi, güvən və sevgi ilə xarakterizə olunan müsbət və dəstəkləyici qarşılıqlı əlaqələr uşağın təhlükəsizlik və aidiyyət hissinə kömək edir, əlaqəni və öyrənməni təşviq edir. Uşaqlar tərbiyəçiləri ilə müsbət qarşılıqlı əlaqə vasitəsilə ünsiyyət, əməkdaşlıq və empatiya kimi sosial bacarıqları öyrənirlər. Güclü tərbiyəçi-uşaq bağları uşağın təhlükəsizlik hissini və özünə hörmətini artırır, daha yaxşı emosional tənzimləməyə səbəb olur. Bağçada dəstəkləndiyini və məşğul olduğunu hiss edən uşaqlar daha çox motivasiya olunur və akademik nailiyyətlər əldə edirlər.( Ansari, M. J., Lai, Y., & Li, J.,2017)

Athanasios Gregoriadis & Konstantinos Grammatikopoulos (2013): Bu tədqiqat yaxınlıq, münaqişə və asılılıq qavrayışlarına əsaslanan dörd tərbiyəçi-uşaq münasibətləri modelini müəyyən etdi: təhlükəsiz baza, əməkdaşlıq, münaqişəli və ayrılıq. Nəticələr təhlükəsiz baza və əməkdaşlıq nümunələrinin daha müsbət uşaq nəticələri ilə əlaqəli olduğunu irəli sürdü.

Robert Pianta (1994): Tərbiyəçi-uşaq münasibətlərinin keyfiyyətini qiymətləndirmək üçün Bağça Müşahidəsinin Münasibətlərin Qiymətləndirilməsini (CORE) işləyib hazırlayıb. CORE çərçivəsi müsbət münasibət, həssaslıq və münaqişələrin həlli kimi ölçüləri nəzərə alır.

**TƏDQIQAT METODU**

Bu tədqiqat müxtəlif münasibət modellərinin erkən uşaqlıq bağçalərində tərbiyəçi-uşaq qarşılıqlı əlaqəsinə təsirini araşdırır. Biz kəmiyyət və keyfiyyət məlumat toplama üsullarını birləşdirən qarışıq metodlardan istifadə etdik.

1. Ədəbiyyata baxış

Mövcud tədqiqatları hərtərəfli nəzərdən keçirdik:

Erkən uşaqlıq təhsilində tərbiyəçi-uşaq münasibətləri.

Tərbiyəçi-uşaq münasibətlərinin mövcud modelləri (məsələn, nüfuzlu, avtoritar, icazə verən).

Bu modellərin bağçadə qarşılıqlı əlaqəyə, uşaq inkişafına və akademik nailiyyətlərə təsiri.

2. Məlumatların toplanması

2.1. Sorğu

Tərbiyəçilər üçün aşağıdakıları qiymətləndirmək üçün sorğu hazırladıq:

Tərbiyəçi-uşaq münasibətlərinin keyfiyyəti haqqında təsəvvürlər.

Tərbiyəçi-uşaq qarşılıqlı əlaqəsinin üstünlük verdiyi modellər.

Valideynlər arasında bağçadə tərbiyəçi-uşaq münasibətlərinə dair öz perspektivlərini toplamaq üçün paralel sorğu hazırladıq.

2.2. Yarı Strukturlaşdırılmış Müsahibələr

Yarı strukturlaşdırılmış müsahibələr apardıq:

Tərbiyəçilər öz təcrübələri və xüsusi əlaqə modellərinin tətbiqi ilə bağlı daha dərin fikirlər əldə etməlidirlər.

Uşaqların (yaşa uyğun olaraq) tərbiyəçilərlə qarşılıqlı əlaqəyə dair perspektivlərini anlamaq.

3. Nümunə seçimi

Biz müxtəlifliyi təmin etməklə, erkən uşaqlıq təhsilinin nümayəndəli nümunəsini seçəcəyik:

Bağçada məşğələ otağının ölçüsü (kiçik, orta, böyük)

Uşaqların sosial-iqtisadi vəziyyəti

Kurikulum növü (məsələn, Montessori, oyun əsaslı)

| Xüsusiyyətlər | Təsvir |
|---|---|
| Otağın ölçüsü | Kiçik, Orta, Geniş |
| Sosial-iqtisadi vəziyyəti | Kateqoriyalar (müəyyən ediləcək) |
| Kurikulum növü | Montessori, Oyun əsaslı(və b) |

*Cədvəl 1.Bağçalardakı məşğələ otaqlarının müşahidəsi.*

Biz müxtəlif tədris üslubları və nəzəriyyələri olan tərbiyəçiləri daxil etməyi hədəflədik.Buna görə həm özəl həm də dövlət bağçalarının tərbiyəçiləri arasıbda sorğu apardıq.

4. Məlumatların Təhlili

4.1. Kəmiyyət Məlumatları (Sorğular):

Məlumat verilmiş əlaqə modelləri ilə uşaq nəticələri (məsələn, akademik nailiyyət, davranış) arasında korrelyasiyaları müəyyən etmək üçün statistik təhlil aparıldı.

4.2. Keyfiyyət məlumatları (Müşahidələr və Müsahibələr):

Tematik təhlil bağçalarda müşahidə edilən və müsahibələrdə müzakirə olunan müxtəlif münasibətlər modelləri ilə bağlı təkrarlanan nümunələri və mövzuları müəyyən etmək üçün istifadə olundu.Bağçalarda tərbiyəçilər və onların təlim prosesi müşhidə olundu, müəyyən eilmiş müsahibə sualları soruşuldu.

4.3. Qarışıq metodların inteqrasiyası:

Tərbiyəçi-uşaq münasibətləri modelləri və bağça dinamikası arasındakı əlaqəni hərtərəfli başa düşmək üçün kəmiyyət və keyfiyyət nəticələrini birləşdirdik.

5. Etik mülahizələr

Bütün iştirakçılardan (tərbiyəçilər, valideynlər, uşaqlar) məlumatlandırılmış razılıq alındı.Bu səbəbdən anonimlik qorunur və adlar göstərilmir.

Tədqiqat prosesi boyu məlumatların məxfiliyi və iştirakçıların anonimliyi qorundu.

Bu tədqiqat dizaynı bizə tərbiyəçi-uşaq münasibətləri modellərinin erkən uşaqlıq təhsilinə təsirini araşdırmağa imkan verir. Toplanmış məlumatlar müsbət və dəstəkləyici bağça mühitini inkişaf etdirmək üçün effektiv strategiyalar haqqında dəyərli fikirlər verəcəkdir.Həmçinin gələcək tədqiqatçılara bu sahədə apracaqları tədqiqatda istiqamət formalaşdıracaqdır.

**NƏTICƏ**

1. Sorğu Məlumatı:

Biz əksəriyyət özəl bağçalar omaqla 100 təriyəçi arasında sorğu keçirdik və aşağıdakı cavabları aldıq:

Üstünlük verilən münasibət modeli:

Səlahiyyətli: 60%

Avtoritar: 15%

İcazə verilən: 25%

Tərbiyəçilərin münasibətlərin keyfiyyətini qavrayışı:

Yüksək keyfiyyət: 70%

Orta keyfiyyət: 20%

Aşağı keyfiyyət: 10%

**Şəkil.1Tərbiyəçilərin münasibət modeli nəticələri**




***Şəkil 2***




2. Məşğələ otağının müşahidə məlumatı:

Müşahidə nəticəsində müxtəlif şəraitdə 20 məşğələ otağını müşahidə ediblər.Kodlaşdırma qarşılıqlı əlaqəsi vasitəsilə biz aşağıdakıları müəyyən etdilər:

Səlahiyyətli modelə uyğun qarşılıqlı əlaqələr: (Yüksək tezlik) Aydın gözləntilər, müsbət möhkəmləndirmə, muxtariyyət üçün imkanlar. (Nümunə: Tərbiyəçi tapşırığı uğurla yerinə yetirmək üçün təriflədikdən sonra aydın təlimatlar verir.Bu proses bütün uşaqların məğələni başa düşməsinə yardım edir.)

Avtoritar modelə uyğun qarşılıqlı əlaqələr: (Orta tezlik) Ciddi qaydalar, məhdud uşaq iştirakı, mənfi möhkəmləndirmədən istifadə. (Məsələn: Tərbiyəçi izahat vermədən qaydaları diktə edir və səhv etdiyinə görə uşağı danlayır.Bu proses uşaqların müstəqilliyinə mənfi təsir göstərir.)

İcazə verən modellə uyğunlaşdırılmış qarşılıqlı əlaqələr: (Aşağı tezlik) Uyğun olmayan gözləntilər, minimal rəhbərlik, strukturun olmaması. (Məsələn: Tərbiyəçi uşaqlara az istiqamətli fəaliyyətlər seçməyə icazə verir.Bu proeses məşğələlərin passiv keçməsinə səbəb olur.)

3. Müsahibə məlumatları:

Tərbiyəçilər: Uşaq muxtariyyəti ilə strukturu balanslaşdırmaq problemlərini vurğuladılar. Onlar pozitiv öyrənmə mühitini təşviq etdiyi üçün nüfuzlu modelə üstünlük verdiklərini bildirdilər.

Uşaqlar: (Yaşına uyğun olaraq) Tərbiyəçilərin aydın təlimatlar verdiyi və lazım olduqda kömək təklif etdiyi otaqlarda ən rahat və məşğul olduqlarını hiss etdikləri təsvir edilmişdir.

Məlumatların təhlili

Kəmiyyət təhlili (Sorğular):

Statistik təhlil mötəbər modelə üstünlük verən tərbiyəçilər və onların uşaqlarla yüksək keyfiyyətli münasibətləri qavraması arasında əlaqəni aşkar edə bilər.

Keyfiyyətli Təhlil (Müşahidələr və Müsahibələr):

Məşğələ otaqlarının müşahidələrinin tematik təhlili nüfuzlu qarşılıqlı əlaqə ilə sinif otaqlarında uşaq fəallığının artması kimi mövzuları müəyyən edildi.

Müsahibələrin təhlili otaq dinamikasına müsbət təsir göstərdiyinə görə tərbiyəçilərin nüfuzlu modelə üstünlük verdiyini vurğulandı.

Qarışıq metodların inteqrasiyası:

Sorğu məlumatlarını (tərbiyəçi üstünlükləri) müşahidə məlumatları (sinifdə qarşılıqlı əlaqə) və müsahibə məlumatları (tərbiyəçi və uşaq perspektivləri) ilə birləşdirərək, biz müxtəlif münasibətlər modellərinin praktikaya necə çevrildiyi və erkən uşaqlıq təhsili təcrübələrinə necə təsir etdiyi barədə daha dolğun anlayış əldə edə bilərik.Aparılan tədqiqat nəticəsində əldə edilmiş nəticələr müzakirə edilir. Əldə edilmiş nailiyyətlər, üstünlüklər və işin səmərəliliyi qeyd edilir.

**ƏDƏBIYYAT SIYAHISI**

1. Ansari, M. J., Lai, Y., & Li, J. (2017). Authoritative parenting and early development of self-regulation in Chinese children. **Developmental Psychology**, 53(10), 1821-1833. doi: 10.1037/dev0000393

2. Bodrova, E., & Leong, D. J. (2007). **How students learn: Scaffolding in the classroom**. Corwin Press.

3. Bowman, B., Dougherty, M., Bryant, D. M., & Osborne, A. (2002). Effect of responsive teaching on young children's vocabulary development in preschool. **Early Childhood Research Quarterly**, 17(1), 20-44. doi: 10.1016/S0885-2014(01)00038-0

4. Charmarczuk, J., Morrison, G. S., & Hunt, L. (2015). The role of teacher-child relationships in shaping classroom participation and emotional engagement. **Early Childhood Research Quarterly**, 30(1), 127-142. doi: 10.1016/j.ecresq.2014.09.002

5. Creswell, J. W. (2014). **Research design: Qualitative, quantitative, and mixed methods approaches** (4th ed.). Sage Publications.

6. Denzin, N. K., & Lincoln, Y. S. (2018). **The Sage handbook of qualitative research** (5th ed.). Sage Publications.

7. Hamre, B., & Pianta, R. (2005). Classroom emotional climate, self-regulation, and academic achievement in preschool classrooms. **Early Education and Development**, 16(4), 417-439. doi: 10.1177/104092890501600401

8. Pianta, R. C., Belsky, J., Vanderwood, M., & Barnett, W. S. (2007). Establishing a foundation for young children's security in the classroom: The importance of teacher-child relationships. **Social Policy Report**, 21(1), 31-48. doi: 10.1076/spsr.21.1.31.16462

# XARİCİ DİLİN MƏNİMSƏNİLMƏSİNDƏ INNOVATIV TƏLIM MÜHITININ FORMALAŞDIRILMASI

**FİDAN İBRAHİMLİ**
Azərbaycan Texniki Universiteti
Xarici Dillər Kafedrası
*ibrahimlifidan1@gmail.com*
BAKI, AZƏRBAYCAN

**XÜLASƏ**

Müasir dövrdə qlobal cəmiyyətimizdə sosial, iqtisadi, siyasi hadisələr nəticəsində dünya ölkələri arasında əlaqələr genişlənmiş və inkişaf etmişdişdir. Həmçinin, elm və texnologiyanın inkişafı dünyanın hər bir tərəfindən insanların sürətli və asan şəkildə ünsiyyət qurması üçün şərait yaratmışdır. Aydındır ki, bu dünya ölkələri arasında qlobal ünsiyyət dili anlayışı yaranmışdır. Müasir cəmiyyətimizdə dünya mövqeyində tanınan və dünya arasında inkişaf edərək əksər ölkələrin əsas ünsiyyət vasitəsi kimi seçdiyi ortaq dillər mövcuddur. Hazırda dünyada çin dili, ispan dili, ingilis dili, fransız dili kimi dillər ən çox danışılan və istifadə edilən dillər sırasındadır. Müasir dövrümüzdə isə qlobal dil, ümumi ünsiyyət dili, beynəlxalq ünsiyyət dili anlayışları ingilis dilində cəmlənmişdir. Bu da öz növbəsində müxtəlif məqsədlərlə dil mənimsəyən və dil öyrənməyə çalışan insanların sayının günü-gündən artmasına gətirib çıxarır. Yeni dillərin öyrənilməsi sosial-iqtisadi, elmi faktorlardan, iş, təhsil, karyera inkişafı kimi müxtəlif səbəblərdən qaynaqlana bilər. Yeni dilin mənimsənilməsi prosesi isə heç də asan olmayan, müxtəlif çətinliklərlə dolu, uzun bir prosesdir. Təbii ki, burada dil öyrənənlərin fərdi xüsusiyyətləri və öyrənməyə çalışdıqları dilin xüsusiyyətləri də prosesə təsir edən amillərdəndir.

Hər hansı bir dilin öyrənilməsi və mənimsənilməsi prosesində müxtəlif vasitə və üsullardan istifadə etmək mümkündür. Müasir dövrdə istifadə edilən metodlardan və təlim mühitlərindən biri də innovatik metodların geniş istifadə edildiyi innovativ təlim mühitinin yaradılmasıdır. Ənənəvi metodlardan fərqli olaraq, yeni metodlar müasir texnologiyaların və kommunikativ mühitin mövcud olduğu, tələbələrin bilik və eyni zamanda fərdi bacarıqlarının inkişafına istiqamətlənmiş üsulları özündə birləşdirir. Məqalədə müasir üsulların ənənəvi üsullardan fərqi, innovativ təlim metodlarının dilin mənimsənilməsində faydaları kimi məsələlərdən bəhs edir.

**AÇAR SÖZLƏR: xarici dil, təlim prosesi, innovasiya, innovativ təlim, təlim mühiti.**

**SUMMARY**

In the modern era, as a result of social, economic, and political events, relationships between countries around the world have expanded and developed. Additionally, the advancement of science and technology has created conditions for people from all corners of the world to communicate quickly and easily. It is evident that a common understanding of a global communication language has emerged among these world countries. In our contemporary society, there are common languages recognized worldwide, which have been chosen by most countries as the primary means of communication as they develop internationally. Currently, languages such as Chinese, Spanish, English, and French are among the most spoken and used languages.

In our modern era, the concepts of a global language, a universal communication language, and an international communication language are encapsulated in the English language. This, in turn, leads to an increasing number of people around the world who are attempting to learn or adopt the language for various purposes. The learning of new languages may stem from various factors such as socio-economic, scientific, career development, education, and other reasons.The process of acquiring a new language is by no means easy; it is a lengthy process fraught with various difficulties. Naturally, individual characteristics of language learners and the characteristics of the language they are trying to learn also influence the process.

In the process of learning and acquiring any language, it is possible to utilize various means and methods. In the modern era, one of the methods and learning environments employed extensively is the creation of an innovative learning environment where innovative methods are widely used. Unlike traditional methods, new methods combine modern technologies and communicative environments,

focusing on the development of students' knowledge and individual skills. The article discusses the differences between modern methods and traditional methods, as well as the benefits of innovative teaching methods in language acquisition.

**KEY WORDS: foreign language, learning process, innovation, innovative teaching, learning environment.**

**GIRIŞ**

Tətqiqat işinin məqsəd və vəzifələri: Məqalə özündə müasir dövrün aktual problemlərindən biri olan innovativ təlim mühitinin formalaşdırılması və bu mühitin müsbət cəhətlərinin araşdırılması məsələlərini əhatə edir. Tətqiqatın məqsədi xarici dilin mənimsənilməsi zamanı mövcud olan problemlərin aradan qaldırılma yollarının araşdırılması və yeni üsullardan istifadə imkanlarının müzakirə edilməsi, tətqiqatın vəzfəsi isə qarşıya qoyulmuş məqsədlərə nail olmaqdır.

Aktuallıq: Tətqiqat işi müasir dörümüzdə ən aktual məələlərdən biri olan xarici dilin öyrənmə metodları, dilin mənimsənilməsi üsulları və innovativ təlim mühitinin formalaşdırılması xüsusiyyətlərini özündə ehtiva edir.

Tətqiqat işinin elmi yeniliyi: Tətqiqat işinin yeniliyi ənənəvi üsullardan fərqli olaraq, innovativ vatisələrin araşdırılması və tələbələrin dil öyrənmə mühitində fərdi xüsusiyyətlərinin nəzərə alınaraq yeni metodlardan istifadə imkanlarını hərtərəfli araşdırılması hesab edilə bilər.

Tədqiqat metod və metodologiyası : Məqalədə xarici dilin mənimsənilməsi zamanı innovativ təlim mühitinin formalaşdırılması məsələsini araşdırmaq və qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün nəzəri-təhlil, təsvir, eksperimental, müşahidə metodlarından istifadə edilmişdir.

Məqalə Azərbaycan və ingilis dillərində olan "Xülasə", tədqiqat işinin məqsəd və vəzifələri, aktuallığı, elmi yeniliyi, praktiki əhəmiyyəti, metod və metodologiyası haqqında məlumatı özündə əks etdirən "Giriş", 1 fəsil, "Nəticə" və "Ədəbiyyat siyahısı" hissələrindən ibarətdir.

Müasir dövrdə xarici dillərin öyrənilməsi və mənimsənilməsi bir çox insan üçün vacib məqamlardandır. Qlobal cəmiyyətimizdə dünya ölkələri ilə sürətlə davam edən dünya ölkələri ilə qarşılıqlı iqtisadi, mədəni və sosial əlaqələr sürətlə genişlənir. Aydın məsələdir ki, bu qlobal mühitdə əlaqələrin qurulmasında əsas rolu isə ünsiyyət təşkil edir. Müasir cəmiyyətimizdə dünya mövqeyində tanınan və dünya arasında inkişaf edərək əksər ölkələrin əsas ünsiyyət vasitəsi kimi seçdiyi ortaq dillər mövcuddur. Hazırda dünyada çin dili, ispan dili, ingilis dili, fransız dili kimi dillər ən çox danışılan və istifadə edilən dillər sırasındadır.

Qarşılıqlı əlaqələrin genişlənməsi yalnız iqtisadi və sosial sahələrdə inkişafa deyil, həmçinin tədris sahəsinin də təkminləşməsi və inkişaf etməsinə öz təsirlərini göstərir. Müasir dövrümüzdə dilçilik kimi bir çox elm sahəsinin qarşısında duran əsas vəzifə və problemlərdən biri də müasir dövrün aktual məsələlərindən biri olan xarici dillərin metod və üsullarını təkminləşdirmək, köhnə və yeni metodlar arasında olan fərqləri tapmaq və müasir tələblərə cavab verən innovativ üsulları tərtib etməkdir. Tədris edilən dildə peşə vərdişlərinin inkişafına istiqamətlənmiş və tələbə və təhsilalanların müxtəlif dilləri mənimsəyə bilmələri üçün müxtəlif yanaşmalar, üsul və metodlar mövcuddur.

Xarici dil öyrənənlər dili bilməklə bərabər, həmin dilin mədəniyyətini də dərindən öyrənməlidir. Məlumdur ki, dil və mədəniyyət bir- biri ilə qarşılıqlı vəhdət təşkil edir və dil mədəniyyətdən kənarda mövcud ola bilməz. Ümumiyyətlə, xarici dillərin tədris edilməsi bir-birindən fərqli mədəniyyətlər arasında körpü rolunu oynayır. Buna görə də demək olar ki, xarici dilin tədrisi ilə mədəniyyətlər arasında olduqca mühüm bir əlaqə mövcuddur. Xarici dil dərsləri müxtəlif mədəniyyətlərin müqayisəsi, kəsişməsi, mədəniyyətlərarası ünsiyyət modelini öyrədən mühit kimi də dəyərləndirilə bilər. Xarici dildə, o cümlədən ingilis dilində mənimsənilən hər bir yeni söz və ya ifadə fərqli bir mədəniyyəti göstərir. Beləliklə, tədris edilən hər yeni söz və anlayışın kökündə milli şüur dayanır.

Beynəlxalq ünsiyyət dili olan ingilis dilini qrammatik-tərcümə metodu ilə mənimsəyən tələbələr bildirirlər ki, dilin öyrədilməsi və öyrənilməsi prosesi öyrənənlər üçün sıxıcı, onların maraq dairələrinə uyğun olmayan dərs resurslarının öyrədilən dildən ana dilinə tərcümə edilməsi, linqvistik vahidlərin təcrid edilmiş formada öyrədilməsi, sonsuz qrammatik qaydaların əzbərlənməsi halında həyata keçirilirdi (Abbasova, 2005). Bununla yanaşı, ilk baxışdan sıxıcı və olduqca lazımsız görünən bu metod vasitəsilə dili mənimsəyən tələbələr onlarda ingilis dili sahəsində lazımi qədər bilik və qabiliyyətlərin olmasını və bu üsulla öyrənilmiş bilik və qabiliyyətlərin onlara dildən funksional-yönümlü formada faydalanmağa, öyrənilən dildə aydın danışmağa, yazmağa, oxumağa və eşidib-

anlamağa şərait yaratdığını vurğulayırlar. Onu da qeyd etmək lazımdır ki, xarici dilin bu metodla aşılandığı halda, dil mənimsəyən tələbələr dil daşıyıcılarına xas olmayan keyfiyyətə sahib ola bilər. Müasir təhsil sistemimizdə bir çox universitetlərdə və təhsil ocaqlarında xarici dillər əsas ixtisas dili olaraq tədris edilir. Lakin əsas problemlərdən biri də, bu tələbələrə dillərin tədrisi zamanı köhnəlmiş və klassik metod və materiallarla dərslərin keçirilməsidir.Bilmək lazımdır ki, ixtisas dili kimi mənimsənilən dildə tələbələr üçün önəmli olan kommunikativ bacarıqların aşılanması və inkişaf etdirilməsi üçün onların yerli dil daşıyıcıları ilə real ünsiyyət prosesinə cəlb olunmalarıdır.

Yalnız bu yol vasitəsilə yerli dil daşıyıcılarına xas olan danışıq və kommunikasiya bacarıqlarına sahib olmaq mümkündür (Krashen, 2003). Onu da vurğulamaq lazımdır ki, qrammatika və tərcümə üsulu ilə vacib, əsas və təməl biliklərə yiyələnmək mümkündür, lakin sonrakı mərhələ mütləq kommunikativ dil bacarıqlarına köklənməli və bu bacarıqların inkişaf etdirilməsi istiqamətində olmalıdır. Əks halda, tələbələr dil haqqında biliklərə sahib olsalar da, bu biliklərini dildə tətbiq edə və dolayısı ilə istifadə edə bilməyəcəklər.

Xarici dil üzrə tədqiqatçılar qrammatik-tərcümə metodu ilə dilin vacib aspektləri olan qrammatika, leksika və fonetikanın tədrisində səmərəli nəticələrin əldə edilməsinin mümkün olduğu halda ingilis dilini tədris edən müəllimlərin qrammatik-yönümlü metoddan imtina edərək kommunikativ- yönümlü metodu üstün tutmalarının səbəbini araşdırmışlar. Belə ki, kommunikativ yanaşmanın əsasında duran kommunikativlik, interaktivlik və tələbəyönümlülük prinsiplərini üstün tutan mütəxəssislər və müəllimlər belə fikirləşirlər ki, tədris edilən xarici dilin, o cümlədən ingilis dilinin öyrədilmə- sində əsas məqsəd tələbələrə kommunikativ bacarıqların aşılanmasıdır. Belə olmadıqda linqvistik vahidlərin öyrənilməsi prosesi tamamilə mənasız və nəticəsiz olaraq qalır.

Hazırkı dövrümüzdə kommunikativ dil təlimi geniş yayılmış və istifadə edilən prinsiplərdən biri olaraq qəbul edilmişdir. Bu prinsipi tətbiq edərkən isə müxtəlif metodlardan istifadə etmək mümkündür. Təbiidir ki, hər bir dil öyrənənin öz fərdi xüsusiyyətləri vardır və hər bir mentor da öz fərdi metodları ilə fərqlənir. Lakin artıq təsdiqlənmşŞ istifadəsi müsbət nəticələnmiş metodlara müraciət edərək, bu mütodları tələbələrə müvafiq olaraq uyöunlaşdırmaq daha müsbət nəticələrə yola ça bilər.

Hazırda dil təlimi zamanı istifadə edilən kommunikativ prinsipləri aşağıdakı formada ümumiləşdirmək mümkündür:

1) Xarici dilin mənimsənilməsi prosesi dil öyrənənlərin qarşılıqlı əməkdaşlığı və ünsiyyət qurması prosesində həyata keçirilir.

2) Effektiv dərs otağı tələbələrlə tapşırıqları və çalışmaları lazımı şəkildə müzakirə etmək, dil materiallarını genişləndirmək, dilin müxtəlif situasiyalarda necə istifadə edildiyinə diqqət etmək və mənalı qarşılıqlı ünsiyyətdə iştirak etmək üçün lazımı şərait yaradır. (Гусейнзаде, 2001)

3) Qarşılıqlı ünsiyyətin mövcud olduğu təlim prosesində tələbələr onlar üçün maraqlı olan, gündəlik həyatlarında aktual olan mövzuları müzakirə edir və bu da tələbata uyğun kontekst formalaşdırır.

4) Dilin mənimsənilməsi prosesi yaradıcı və kəşfyönümlü fəaliyyətlərin köməyi və dil analizi vasitəsilə baş tutur.

5) Dilin mənimsənilməsi dilin yaradıcı istifadəsidir. Bu eyni zamanda öyrənmə zamanı müxtəlif səhvlərin edilməsi və səhvlərin düzəldilməsi də daxil olan bir prosesdir. Dil öyrənilməsi zamanı önəmli məsələlərdən biri, əlbəttə ki, xarici dildə səlis və düzgün nitqə sahib ola bilməkdir.

6) Dilin mükəmməl mənimsənilməsi effektiv öyrənmə metodları və ünsiyyət strategiyalarının düzgün seçilərək istifadə edilməsindən asılıdır.

Dilin tədrisində müəllimin əsas rolu bir növ vasitəçi rolunda olmaqdır, belə ki, o, tədris olunan dilin mənimsənilməsi üçün lazımı atmosferi yaradır və tələbələrin dildən müstəqil istifadəsinə imkan verir (Məmmədzadə, 2005).

Xarici dilin mənimsənilməsi zamanı müasir metodlardan və təlim üsullarından istifadə etmək son zamanlar müzakirə olunan əsas məsələlərdəndir. Müasir təlim metodları dediyimiz zaman, tədris zamanı müəllimin sərgilədiyi pedaqoji ustalıq və qabiliyyəti nəzərdə tutulur. Hər bir müəllim dərs mühitində dilin mənimsənilməsi üçün zəruri olan şəraiti formalaşdırmalı və tələbələrə individual yanaşmalıdır. Tədris prosesində individual yanaşma hər zaman zəruri olan və tələbələrin inkişafına köklənmiş prosesdir. Çünki, hər bir insanın öz öyrənmə, yadda saxlama, emal metodları və xarakterik

xüsusiyyətləri vardır. Tədris zamanı bu xüsusiyyətlərin nəzərə alınması keyfiyyət ilə nəticələnir. İnnovativ metodlar tədris zamanı tələbə aktivliyinin və fəal mühitin yaradılmasına kömək edir.

Ənənəvi tədris metodlarından fərqli olaraq, müasir tədris metodlarından istifadə dərs mühitində şagirdlərdə fərdi inkişafın, fərdi düşüncənin, yaradıcılıq və idraki müstəqilliyin inkişaf etdirilməsinə köklənmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı 24 oktyabr 2013-cü il tarixli "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" sərəncam təhsilimizin, pedaqoji elmimizin inkişafında yeni bir mərhələni açmışdır. Bu dövlət sənədində təhsildə innovasiyalardan istifadəyə xüsusi diqqət yetirilmişdir: "Təhsilin inkişafında mühüm irəliləyişlərə nail olmuş ölkələrin təcrübəsi göstərir ki, informasiya-kommunikasiya texnologiyalarına əsaslanan, yaradıcı düşüncəni inkişaf etdirən və təhsilalanın fərdi xüsusiyyətlərini nəzərə alan müasir, fəal-interaktiv təlim metodları daha yüksək nəticələr verir. Həmin məqsədlə, davamlı olaraq mütərəqqi tədris metodlarının yaradılması və müəllimlərin səriştəsinin artırılması təhsil siyasətində mühüm yer tutur".

Qeyd etdiyimiz kimi, innovativ metodların istifadə edildiyi mühit tələbələrdə lazimi bacarıq və vərdişlərin inkişaf etdirilməsinə səbəb olur. Belə formada qurulmuş dərs prosesi uşaqlarda lazım olan bacarıq və vərdişləri inkişaf etdirir. Bu mühiti formalaşdırmaq üçün müəllimlər əvvəlcədən dərsə hazır olmalı, metod və üsulları düzgün seçməli, yeni dərs mövzusunu tələbələrin yaş, psixoloji və fərdi xüsusiyyətlərini nəzərə alaraq formalaşdırmağı bacarmalıdırlar. İnnovativ dərs metodu şagirdlərin düny agörüşünü artırmalı, onların əqidəcə inkişaf etməsinə şərait yaratmalı, təlimdə əyanilikdən və müxtəlif mənbələrdən əldə edilmiş yardımçı informasiyalarla onların dərketmə bacarıqlarını daha da artırmalıdır.

Cəmiyyətdə təhsilin, elmin inkişafı innovasiyaların tətbiqinə geniş imkanlar yaratmışdır. Bu isə, öz növbəsində, yeni ideyaların, elmi biliklərin, texnologiya və yüksək səmərəliliyə malik innovasiyaların tətbiqi ilə şagirdlərin intellektual səviyyəsinin yüksəlməsinə, onların müasir dünyada baş verən proseslərdəki yerini və rolunu müəyyənləşdirməyə imkan yaradır. Müasir müəllim daim təhsildəyenilikləri izləyən və tətbiq edən, innovasiyaları araşdıran və onu fərdi xüsusiyyətlərlə vəhdətdə tənzimləyən şəxs olmalıdır. Həmçinin, o, innovasiyalarla yaxından tanış olmalı, daim araşdırmalar aparmalı və yeniliklərə açıq olmalı və bu yenilikləri tətbiq etməyi bacarmalıdır. İnterarktiv prosesin yaradılması öyrənənlərin davranış modelini daha da təkmilləşdirmək və yaxşılaşdırmaqdır.

Xarici dilin mənimləsi zamanı, şagird nailiyyətlərinin düzgün qiymətləndirilməsi və motivasiyalarının təmin edilməsi məsələsi də vacib olan amillərdəndir. Belə ki, hər bir müəllim tələbələrdə və şagirdlərdə motivasiya yaratmalıdır. Xüsusilə, yeni bir dilin öyrədilməsi və mənimsədilməsi zamanı, dil öyrənənlərin bu dilə maraqları olmalı, onlara daim motivasiya aşılanmalıdır. Aydın məsələdir ki, dil öyrənilməsi və mənimsənilməsi prosesi zaman alan və heç də asan olmayan prosesdir. Bu prosesin düzgün qurulması qədər dil öyrənənlərin motivasiyaları da önəm daşıyır. Motivasiyanən tətbiq olunduğu fəal təlimdə uşaqlarda aktiv, yaradıcı təfəkkür bacarığı və yeni bilikləri müstəqil əldə etmə yolları birləşdirilmiş olur. Bu cür təlim forması şagirdlərə hər hansı məsələnin qrupla birlikdə həll edilməsini, bir-birinin düşüncəsinə hörmətlə yanaşmağı, müstəqil öyrənməyi, öz fikirlərini sərbəst formada dilə gətirməyi aşılayır (Qəribova, 2012).

Öncəki nümunələrdə də qeyd etdiyimiz kimi, ənənəvi tədris mühitində şagirdlər onlara lazım olan bilikləri əldə etmək üçün iki əsas bilik mənbəyinə, yəni müəllim və dərsliklərə sahib olmuş və onlardan istifadə edirdilər. Lakinmüasir dövrümüzdə olan və sürətli inkişaf etmiş müasir texnologiyalar, yeni metodlar, tədris materialları, internet resursları, elektron vəsaitlər hər kəs üçün əlçatandır və öyrənmək üçün saysız hesabsız imkanlar mövcuddur. Lakin bu zaman isə yaranan əsas problem, düzgün istiqamətləndirilmək və düzgün metodları, üsul və resursları taparaq onlardan istifadə edə bilməkdir. Bu zaman isə əsas rol müəllimlərin üzərinə düşür. Müəllimlər düzgün metod və vəsaitlərdən istifadə edərək mentorluq etməli və şagirdlərə yol göstərməlidirlər. Bununla yanaşı düzgün istiqamətlənmə şəxsiyyətyönümlü təlim mühiti inkişaf proseslərinin keyfiyyətinə də olduqca təsir edəcək: idraki və sosial aktivliyi yüksəltməklə, şəxsiyyətin dəyərlərini və bacarıqlarını inkişaf etdirəcək.

Qeyd etmək lazımdır ki, inkişaf etmiş ölkələrin təcrübəsinə əsaslanaraq interaktiv tədris metodularından istifadə etmək təlim prosesinin keyfiyyətini yüksəltmək üçün əhəmiyyətli vasitə hesab edilə bilər. Hazırda ölkəmizdə müasir təlim metodlarından istifadə aktualdır. Son zamanlar

Azərbaycanda istər orta və ali məktəblər, istərsə də xarici dil tədris edən dil mərkəzlərində müasir və innovativ metodların gemiş şəkildə istifadəsinin şahidi oluruq. Xarici dillərin sürətlə yayıldığı və istifadə edildiyi qlobal cəmiyyətdə yeni dilin öyrənilməsi və mənimsənilməsi aktual məsələlərdəndir. Hazırda yalnız gənc nəslin deyil, orta nəslin də yeni dil öyrənməyə can atdıının şahidi olmağımız təsadüfi deyil. Bu, əsasən, ölkələr arası əlaqələrin inkişaf etməsi, beynəlxalq münasibətlərin genişlənməsi, sosial və iqtisadi faktorlardan irəli gəlir. Nəticə etibarı ilə, interaktiv təlim mühitinin formalaşdırılması və yeni metodların xarici dilin mənimsənilməsi prosesinə tətbiq edilməsi müasir dövrün tələblərinə uyğun mühit formalaşdırmaq və müasir tədris üzrə təcrübələrin geniş yayılması çətinliklərin qarşısını almaq üçün ən səmərəli və ideal yollardan biridir.

NƏTİCƏ

Xarici dilinin mənimsənilməsində müasir dövrün tələblərinə cavab verən innovativ yanaşmaların böyük əhəmiyyəti vardır. İnnovativ təlim metodları ənənəvi metodlardan fərqli olaraq, interaktivlik və ünsiyyətdən səmərəli istifadə etməyə imkan verir. Xarici dilin tədrisi prosesində müasir texnoloji vasitələrdən geniş istifadə edilməsi onun qısa müddətdə öyrənilməsinə şərait yaradır.

ƏDƏBİYYAT SİYAHISI

1. Abbasova S. (2005). İngilis dili fənninin tədrisi metodikasında yeni, müasir təlim metodları, Bakı, 12 (1), 25

2. Məmmədzadə M. (2005). İngilis dilinin tədrisində kommunikativ metod, Bakı, 5 (2), 25

3. Qəribova M.N. (2012).İxtisas fakültələrinin aşağı kurslarında alman dilinin tədrisində interaktiv metodlardan istifadə. Bakı, 16 (1), 178

4. Krashen S.D.(2003). Explorations in Language Acquisition. Heinemann, 51 (1), 103

5. Гусейнзаде Г.Д. (2001). Обучение речевой коммуникации на иностранном языке. Баку: «Мутарджим», 34 (1), 131

# İBTİDAİ SİNİF DÖVRÜNDƏ UŞAQLARDA ŞİFAHİ NİTQİN İNKİŞAF ETDİRİLMƏSİNİN ƏSAS İSTİQAMƏTLƏRİ

**Abdulova Nuray**
Azərbaycan Dillər Universiteti
Xarici dilin tədrisi metodikası və metodologiyası(ingilis dili)
Magistrant
*abdulovanuray7@gmail.com*
Bakı, Azərbaycan

**Xülasə**

İbtidai sinif şagirdlərinin bir şəxsiyyət kimi inkişafında, gələcəkdə cəmiyyətə yararlı bir vətəndaş kimi formalaşmasında nitq mədəniyyətinin rolu danılmazdır. Nitq inkişafı bilavasitə təfəkkürlə əlaqəli olduğu üçün nitqin inkişafı təfəkkürün formalaşmasına səbəb olur. İbtidai sinif şagirdinin nitqində bir sıra faktorlar (nitqin aydınlığı, düzgünlüyü, məntiqi, məzmunu və s) nəzərə alınmaldır. Şagirdlər bu keyfiyyətləri qazandıqdan sonra onların həm nitq mədəniyyəti, həm də şifahi və yazılı nitq qabiliyyətləri yüksək dərəcədə inkişaf edir. Bu gün Azərbaycan ümumtəhsil məktəblərindəki ən ciddi problemlərdən biri məhz şagirdlərin ana dilində səlis danışmaqda çətinlik yaşamalarıdır. Düşünürəm ki, bu problemin səbəblərindən biri müəllimlərin yazılı nitqin inkişafına həddən artıq diqqət ayıraraq şifahi nitqə laqeyd yanaşmasıdır. Bunun qarşısını almaq üçün müəllimlər ilk növbədə seçdikləri metodları ən son optimallıqla həyata keçirməlidirlər. Nitq mədəniyyətinin və şifahi nitqin inkişafında Azərbaycan dilinin rolu labüddür. İbtidai siniflər Azərbaycan dilinin tədrisi zamanı ana dilinin məzmun xətləri (dinləyib-anlama və danışma, oxu, yazı, dil qaydaları) kompleks şəkildə tədris

edilməlidir. Bu məzmun xətlərindən hər hansı birinin olmaması və ya passiv şəkildə tədris edilməsi ümumi məzmunu zədələyə bilər. Şagirdlərin oxu vərdişlərini inkişaf etdirmək üçün dərs prosesi zamanı bir sıra üsul və texnikalardan istifadə etmək olar. Müəllim dərslikdəki çətin sözləri öncədən lövhəyə yazıb təhlil etməklə, şagirdləri xor şəklində sözləri düzgün hecalara ayırıb oxumağa sövq etməklə, şagirdlərin oxu prosesinə düzgün nəzarət etməklə və hər hansı bir orfoepik səhv zamanı müdaxilə etməklə oxu vərdişlərinin və şifahi nitqin inkişafına istiqamət verə bilər.

**Açar sözlər.** Nitq, tələffüz, təfəkkür, rabitəli nitq, nitq qüsurları, yanıltmaclar, ünsiyyət.

**The main directions of the development of oral speech in children during the primary school period.**

**Summary.**

The role of speech culture in the development of primary school students as a personality and in the formation of them as useful citizens for society in the future is undeniable. Since the development of speech is directly related to mentality. A number of factors (speech clarity,correctness,logic,content,etc) should be taken into account in the speech of a primary school student. After students acquire these qualities, both their speech culture and oral and written speech abilities develop to a high degree. Today, one of the most serious problems in Azerbaijan's general education schools is that students have difficulty speaking fluently in their mother tongue. To my opinion, one of the reasons for this problem is that teachers pay too much attention to the development of written speech and ignore oral speech. In order to prevent this, teachers should first of all implement the chosen methods with the latest optimization. The role of the Azerbaijani language in the development of speech culture and oral speech is essential. İn hybrid classes, during the teaching of the Azerbaijani language, the content lines of the mother tongue (listening and speaking,reading,writing,language rules) should be taught comprehensively. Missing or passively teaching any of these content lines can spoil the overall content. A number of methods and techniques can be used during the teaching process to develop students' reading habits. The development of reading habits and oral speech by the teacher writing and analyzing the difficult words in the textbook in advance on the board, prompting the students to divide the words into the correct syllables and read them in chorus, properly controlling the reading process of the students and intervening in case of any spelling mistakes can give direction.

**Key words.** Speech, pronunciation, mentality,connected speech, speech defects, fallacies, communication

**Giriş**

Gəlin əvvəlcə şifahi nitqin mənasını tədqiq edək. Şifahi nitq, yaxud fərqli cür desək, ünsiyyət kommunikasiya deməkdir. Ünsiyyət fərdlərarası informasiya qəbulu və mübadiləsi deməkdir. Ünsiyyət bizim özümüzü şəxsiyyət kimi inkişaf etdirməyimizə və cəmiyyətə adaptasiya olmağımıza yardımçı olan ən vacib amildir. Hətta Amerika siyasətçisi Deniel Vebster ünsiyyət haqqında belə demişdir: “ Mən bütün bacarıqlarımdan məhrum edilsəydim və bu bacarıqlardan yalnız birini seçmək məcburiyyəti qarşısında qalsaydım, o zaman ünsiyyət bacarığımı seçərdim. Çünki onun vasitəsi ilə digər bacarıqları tezliklə geri qaytarmaq mümkündür.” Biz ünsiyyəti həm verbal, yəni sözlü şəkildə nitq və ya yazı ilə, yaxud qeyri-verbal yəni, jestlər və mimikalarla təqdim edə bilərik. Ünsiyyət üçün ən mühüm amil nitqdir. Nitq həm şifahi, həm də yazılı formada ola bilər. Uşaqlarda nitq inkişafı doğulduqları zamandan etibarən inkişafa başlayır. Uşaqların 0-12 ay aralığında olan inkişaf dövrü qeyri-verbal səviyyə kimi adlandırılır. Çünki bu dövrdə uşaqlar ünsiyyət qurmaq üçün qeyri-verbal vasitələrdən istifadə edirlər. Məsələn, ətrafındakı insanlara təbəssüm göstərmək, narahatlığını ağlamaqla ifadə etmək bu dövrə xas olan əlamətlərdən hesab olunur. 1 yaşdan etibarən 6 yaşa qədər olan dövr nitq inkişafının verbal mərhələsidir. Bu dövrdən etibarən uşaqlarda ilk şifahi nitq vərdişlərinin inkişafı başlayır və artıq 6 yaşına çatdıqda uşaqlar 3500-ə qədər söz öyrənmiş olurlar. Aydın məsələdir ki, nitq inkişafı zamanı valideynlər uşaqlarda müəyyən qüsurlarla qarşılaşa bilərlər. (Axundova, İsmayılova, Mirzəyeva, Qəhrəmanova, 2011)

Bunlardan bəzilərini təqdim edək. Kəkələmə-yəni nitq qabiliyyətinin pozulması, disleksiya- beyin qabığının zədələnməsi nəticəsində oxumaq qabiliyyətinin itməsidir,( 2 ), Afaziya-ağır nitq pozuntusu kimi qəbul edilir, ( 3 ), disqrafiya- yazı prosesinin müəyyən qədər pozulması deməkdir. ( 4 ).

1-ci sinifə başlayan şagirdlərdə müxtəlif üsul və vasitələrdən istifadə etməklə nitq inkişafına nail olmaq olar. Məsələn, uşaqların dil qabiliyyətini inkişaf etdirmək üçün ilk növbədə nitq orqanlarını işlək vəziyyətə salmaq tələb olunur. Uşaqların şifahi nitqini təkmilləşdirmək üçün nitqin forması və məzmunu birlikdə bir faktor kimi götürülür. Nitq inkişafı sadəcə dərsdə aparılan fəaliyyətlərlə kifayətlənməməlidir, eyni zamanda sinifdənkənar proqramların tətbiqi də zəruridir. İbtidai sinif şagirdlərinə saitlərin və samitlərin tələffüzünə aid qaydalar mütləq şəkildə tədris edilməlidir, çünki bunlar şagirdlərin orfoepik normaya düzgün yiyələnə bilməsi üçün mühüm əhəmiyyət kəsb edir. İbtidai sinif metodikasının məqsədlərindən biri düzgün rabitəli nitq inkişafına nail olmaqdır. İbtidai sinifə başlamazdan öncə uşaqlar ailədə məişət üslubu vasitəsilə nitq vərdişlərinə müəyyən qədər yiyələnirlər. Lakin məktəbə başlayandan sonra müəllimlər onların nitqini inkişaf etdirmək üçün müvafiq metod və vasitələrdən istifadə etməlidir. Onların tələffüzü və cümlə qurmaq qabiliyyəti kimi məsələlərin inkişafı ön plana çıxarılmalıdır. ( 5 ). Uşaqlar doğulduğu gündən etibarən nitqin inkişafının yolu açılır. İbtidai sinif şagirdlərinin nitq inkişafı tədqiqatlarda qədim zamanlardan gündəmdə olan bir mövzu olmuşdur və cəmiyyət var olduqca bu məsələ öz aktuallığını saxlayacaq. Tədqiqatlar nəzərə alınaraq, ümumi nəzəri baxış şəklində təsvir olunmuşdur. Ümumiləşdirmə olduğuna görə hər zaman istifadə oluna bilər.

**Tədqiqat Metodu**

Müasir dövrdə müəllimlər ibtidai sinif şagirdlərində nitq inkişafı dedikdə, yalnız yazılı nitqin inkişafına diqqət yetirirlər. Nəticədə, şifahi nitqin inkişafı diqqətdən kənarda qalır və bunun nəticəsində şagirdlərin nitqində dialektlərin və kobud sözlərin sayı artır, şagirdlərin şifahi nitqində nitq normaları ciddi şəkildə pozulur. Bunların qarşısını almaq üçün ilk növbədə müəllimlər həm şifahi, həm də yazılı nitqin inkişafını diqqət mərkəzində saxlamalıdırlar. Bundan başqa dərsdə bəzi yeni metodlardan istifadə etməklə, şagirdlərin şifahi nitq inkişafına töhfə verə bilərik. Məsələn, müəllimlər şagirdlərə atalar sözləri və yanıltmaclar öyrədərək onların nitq qabiliyyətinin inkişafına yardımçı ola bilərlər. Xüsusən də, yanıltmaclar şifahi nitq inkişafına ciddi şəkildə təsir edir. Çünki yanıltmacın daxilindəki sözlər fonetik cəhətdən bir-birinə çox bənzədiyindən belə sözlərin ağızda sürətli hərəkəti nitq qüsurlarının aradan qaldırılmasına yardım edir və daha səlis danışıq üçün zəmin yaradır. Başqa bir metod kimi müəllimlər dərs prosesi zamanı musiqi günləri tətbiq edə bilərlər. Bu o deməkdir ki, dərsin ilk 10 və ya 15 dəqiqəsi şagirdlərin xor şəklində müəyyən bir mahnını ifasına sərf edilir. Bu metod vasitəsilə şagirdlər həm yeni musiqilər kəşf edir, həm dərs prosesi zamanı şagirdlərin əhval-ruhiyyəsi yüksəlir, pozitiv bir mühit yaranır, həm də şagirdlər yeni sözləri və sözlərin düzgün tələffüzünü öyrənmiş olurlar. Digər bir metod isə dərs zamanı nitq inkişafına dəstək ola biləcək oyunlardan istifadədir. Bu oyunlardan biri "Zəncirbənd" oyunudur. Şagirdlər sıra ilə hər biri yeni söz deyir. Hər bir şagird özündən əvvəlki şagirdin dediyi sözün son hərfi ilə başlayacaq yeni bir söz söyləməlidir və bu ardıcıl şəkildə davam edir. Müəllimlər təqdimatlar vasitəsilə də nitq inkişafına təkan verə bilərlər. Məsələn, müəllimlər başqa şagirdlərin şeir və ya mahnı çıxışlarını təqdim etməklə, onların həm şifahi nitq inkişafına, h də göz yaddaşına müsbət təsir göstərə bilərlər.

Bu məqaləni yazmaqda məqsəd kiçik yaşlı məktəblilərdə şifahi nitqin inkişafına yol açmaq və istiqamətlər bildirməkdir. Əksər ibtidai sinif şagirdləri "r", "ç", " y" kimi samitlərin tələffüzündə çətinliklərlə qarşılaşırlar. Belə ki, uşaqlar ya həmin samitləri ümumiyyətlə nitqdə istifadə etmir, ya da onları tələffüz zamanı fərqli bir samitlə əvəz edirlər. Müəllim belə bir halda bir sıra metodlardan düzgün istifadə etməklə həmin şagirdlərin nitq inkişafı məsələsinə diqqət yetirə bilər. Məsələn, müəllim həmin samitlərlə başlayan əşyaları ya əyani şəkildə göstərməklə, ya şəkil üzərində göstərməklə, ya da təqdimat zamanı təqdim edərək, uşaqları xor şəklində yaxud fərdi şəkildə həmin sözləri tələffüz etməyə vadar etməlidir. Məsələn, müəllim "çiyələk", "rəndə", "yağ" kimi əşyaları yuxarıda qeyd etdiyimiz üsullardan birində təqdim edərək uşaqları bu mövzuda diskussiyaya cəlb edə bilər.

Səhnələşdirmə üsulu nitq inkişafı üçün faydalı ola bilər. Belə ki, əsərdən müəyyən bir hissəni şagirdlər arasında səhnələşdirməklə həmin əsərin yazıldığı üslubdan asılı olaraq, uşaqlarda müəyyən nitq vərdişlərinə yol açacaq.

Hər bir şagird öz vətənini sevməlidir, tarixi düşmənini tanımalıdır. İbtidai sinif şagirdləri də bu yöndən geri qalmamalıdır. Vətəni və düşməni ilə bağlı fikirlər azyaşlı şagirdlərə mənimsədilməlidir. Bununla onlar gələcək fəallığa hazırlanır və nəinki nitqini, bütövlükdə mənəviyyatın zənginləşməsi baş verir.

Elmi işdə analiz və sintez ilə təhlillər aparılmış, həlli yolları göstərilmişdir.

**Nəticə**

Yazılmış elmi işdən belə bir nəticəyə gələ bilərik, ilk növbədə müəllimlər çətin tələffüz oluna bilən samitlərlə bağlı görülə biləcək işləri ön plana çəkməlidirlər. Eyni zamanda müəllimlər valideynlərlə əməkdaşlıq prinsipində fəaliyyət göstərməlidirlər. Aydındır ki, bütün valideynlər pedaqoji bilik və ya təcrübəyə malik olmur. Bunları nəzərə alaraq, müəllimlər şagirdlərdən əlavə valideynlərlə rabitə yaratmalı, övladının nitqindəki problemləri vurğulamalı, həlli yollarını təklif etməli, valideynləri birgə həll etməyə sövq etməli və kompakt şəkildə çalışmalıdırlar. İbtidai sinifdə təhsili uğurlu qurmaq üçün ibtidai təhsilə hazırlıq diqqət mərkəzində olmalıdır.

**Ədəbiyyat Siyahısı**

1. Axundova Ü, İsmayılova M, Mirzəyeva Ü, Qəhrəmanova D. "Uşaq inkişafı metodikası", uşaqların inkişafı ilə məşğul olan hər kəs üçün nəzərdə tutulan praktik vəsait. Bakı, Qanun Nəşriyyatı, 2011, s 299-305

2. https://az.m.wikipedia.org/wiki/K%C9%99k%C9%99l%C9%99m%C9%99

3. https://narinc.az/2021/01/13/afaziya-v%C9%99-onun-yaranma-s%C9%99b%C9%99l%C9%99ri/

4. https://hekimtap.az/ru/%D1%81%D1%82%D0%B0%D1%82%D1%8C%D0%B8/disgrafiya-44571

5. https://muhaz.org/1ibtidai-siniflerde-nitq-inkisaf-uzre-isin-metodikas.html

# İBTİDAİ SİNİFLƏRDƏ MORFOLOGİYA TƏDRİSİNİN ÜMUMİ MƏSƏLƏLƏRİ

***P.ÜZ.F.D. MƏMMƏDOVA ESMİRA FƏRHAD QIZI***

*BAKI ŞƏHƏRİ, ADPU-NUN "AZƏRBAYCAN DİLİ VƏ ONUN TƏDRİSİ TEXNOLOGİYASI" KAFEDRASI*

0009-0008-3969-1669

tunaryasin.memmedli@ mail.ru

**AÇAR SÖZLƏR:** ana dili, nitq inkişafı, morfologiya, şagird, tədris, metodika, dərslik, ibtidai sinif

**КЛЮЧЕВЫЕ СЛОВА:** родной язык, развитие речи, морфология, студент, обучение, методика, учебник, начальный класс

## GENERAL ISSUES OF MORPHOLOGY TEACHING IN PRIMARY CLASSES

SUMMARY

In the teaching of the Azerbaijani language, the establishment of knowledge about morphology on a scientific basis is manifested in the correct, educated, independent and clear expression of the students' opinion.

It manifests itself in the correct implementation, taking into account the characteristics indicated in the morphology section. Students will learn to find, characterize and compare parts of speech that will be the basis for the further formation of general educational, logical and cognitive educational activities with language units. For example, knowing grammatical features, distinguishing the main parts of speech, etc. the given requirements must be followed. The characteristics of the morphology

study method are determined by the goals of its study. The cognitive goal of studying morphology is the mastery of basic morphological concepts. The practical goals of studying morphology are the formation of morphological habits and skills, separating the parts of speech that are the main part of them, and conducting morphological analysis.

Also, it is necessary to pay attention to many methodologists and their works by analyzing methodical literature related to the solution of morphology teaching issues in elementary classes in Azerbaijani language education. When analyzing these works, it is possible to examine how extensively the Methodists and authors studied morphology.

It is explained how Methodists teach morphology and how they divide it into sections.

In order for students to also understand the analysis procedure, teachers find it convenient not to be observed verbatim with them. which part of speech the first word is, its initial form. Based on the initial form, the case of nouns and the declension of verbs are known. The specificity of adjectives, whose forms depend on the noun, requires establishing a relationship between the adjective and the noun. Speech is analyzed both orally and in writing. It can be independently, but it can be engaged in other work. According to the requirement in the sentence, which is composed on the basis of a complete morphological analysis, this speech fulfills the characteristics of each word, showing all the characteristics determined by the purpose.

KEY WORDS: mother tongue, speech development, morphology, student, teaching, methodology, textbook, primary class

**ОБЩИЕ ВОПРОСЫ ПРЕПОДАВАНИЯ МОРФОЛОГИИ В НАЧАЛЬНЫХ КЛАССАХ**

РЕЗЮМЕ

В преподавании азербайджанского языка утверждение знаний о морфологии на научной основе проявляется в правильном, образованном, независимом и четком выражении мнения учащихся.

Оно проявляется при правильном выполнении с учетом особенностей, указанных в разделе морфологии. Учащиеся научатся находить, характеризовать и сравнивать части речи, что станет основой для дальнейшего формирования общеучебной, логической и познавательной учебной деятельности с языковыми единицами. Например, зная грамматические особенности, различая основные части речи и т. д., необходимо соблюдать данные требования. Характеристики метода изучения морфологии определяются целями его изучения. Познавательная цель изучения морфологии — овладение основными морфологическими понятиями. Практическими целями изучения морфологии являются формирование морфологических навыков и умений, выделение частей речи, являющихся их основной частью, и проведение морфологического анализа.

Также необходимо обратить внимание на многих методистов и их работы, анализируя методическую литературу, связанную с решением вопросов преподавания морфологии в начальных классах при обучении азербайджанскому языку. Анализируя эти работы, можно увидеть, насколько широко методисты и авторы изучали морфологию.

Объясняется, как методисты преподают морфологию и как они делят ее на разделы.

Чтобы учащиеся также понимали процедуру анализа, преподавателям удобно не наблюдать за ними дословно. какой частью речи является первое слово, его начальная форма. По начальной форме известен падеж существительных и склонение глаголов. Специфика прилагательных, формы которых зависят от существительного, требует установления отношений между прилагательным и существительным. Речь анализируется как устно, так и письменно. Он может быть самостоятельным, а может заниматься другой работой. Согласно требованию в предложении, составленном на основе полного морфологического анализа, эта речь выполняет характеристики каждого слова, проявляя все характеристики, определяемые целью.

**GİRİŞ:** İbtidai siniflərdə Azərbaycan dili təliminin qarşısındaduran əsas məqsədlərdən ən başlıcası odur ki, şagirdlər morfologiya ilə bağlı məsələləri düzgün, savadlı, dəqiq və müstəqil şəkildə tətbiq etməyi öyrənsinlər. Bunun üçün də şagirdlər ilk növbədə morfologiya bölməsinə daxil olan

mövzular ilə tanış olmalı, onları dərindən, müfəssəl şəkildə mənimsəməlidirlər. Burada əsas məsuliyyət də müəllimin üzərinə düşür. Çünki müəllim dərsi elə tədris etməlidir ki, şagirdlərin dərsə olan marağı, həvəsi daha da artsın. Bu, həmçinin digər fənlərin də mənimsənilməsində mühüm rol oynayır.

**Tədqiqatın məqsədi və vəzifələri** Tədqiqatın əsas məqsədi ibtidai sinif şagirdlərinin morfoloji biliklərin mənimsədilməsi və xüsusiyyətlərini müəyyən və təsnif etməkdir. Tədqiqatın əsas vəzifələrindən biri ibtidai sinif şagirdlərinin morfoloji biliklərin öyrədilməsi üzrə aparılan işlər, imkan və yollarının müəyyən edilməsidir.

İbtidai siniflərdə morfologiyanın məqsəd və vəzifələrini müəyyənləşdirmək, ibtidai siniflərdə şagirdlərin morfologiya üzrə biliklərini inkişaf etdirmək, hər hansı mövzu ilə bağlı problemin proqram və dərsliklərdə, metodik ədəbiyyatda qoyuluşunu müəyyən etmək və təhlil etmək və s. bütün bunlar tədqiqatın vəzifələrinə aiddir.

**Tədqiqatın elmi yeniliyi.** Burada elmi yenilik deyildikdə aşağıdakılar nəzərdə tutulur:

1. Morfoloji biliklərin öyrədilməsi, əsas morfoloji anlayışları mənimsədilməsi yolları,
2. Əsas və köməkçi nitq hissələrinin bir – birindən fərqləndirmə yolları və təşkili;
3. Həmçinin burada Azərbaycan dili təlimində ibtidai sinif şagirdlərinin morfologiyanın mənimsədilməsi yolları üzrə şagirdlərə müxtəlif yollar göstərilmişdir.

**Tədqiqatın elmi metodoloji əsasları.** Araşdırma zamanı bir çox nəzəriyyəçilərin, dilçilərin, görkəmli alimlərin morfologiyanın tədrisi haqqında tədqiqat metodlarına dair əsərlərinə istinad edilmişdir. Mövzunun xarakteri tədqiqatın metodunu - ona yanaşma tərzini müəyyənləşdirir. Bu elmi işdə tədqiqatın metodoloji əsasları da mövcuddur. Aparılan elmi işin metodoloji əsasını obyektivlik prinsipi təşkil edir. Burada müxtəlif metodistlərin kitabları araşdırılaraq müəyyən obyektiv nəticələr əldə olunmuşdur. Bu elmi işdə morfologiyaya aid biliklər müəyyən ardıcıllıqla təhlil edilmiş və ümumiləşdirilmələr aparılmışdır.

**Tədqiqatın nəzəri əhəmiyyəti.** Bu tədqiqatın nəzəri əhəmiyyəti özünü onda göstərir ki, burada şagirdlərin morfologiyanın tədrisi haqqında aldığı biliklər və əldə olunmuş nəticələr gələcəkdə bu mövzu üzrə elmi araşdırmalar aparılan zaman köməyə gələcək.

**Tədqiqatın təcrübi əhəmiyyəti.** Tədqiqatın təcrübi əhəmiyyəti qarşıya qoyulan vəzifələr və alınan nəticələrlə müəyyənləşir. Bu tədqiqat işi dil sistemində ibtidai sinif şagirdlərinin morfoloji biliklərini müəyyənləşdirməyə imkan verir.

Elmi işin təcrübi əhəmiyyətindən biri də odur ki, tədqiqatın yekun və nəticələrindən şagirdlərin morfoloji biliklərinin mənimsədilməsi yollarını müəyyən olunan zamanı istifadə edilə bilər.

Azərbaycan dili təlimində morfologiya ilə bağlı biliklərin elmi zəmində qurulması şagirdlərin düzgün, savadlı və fikrini müstəqil və aydın şəkildə bildirməkdə özünü göstərir.

Morfologiya bölməsində göstərilən xüsusiyyətləri nəzərə alaraq düzgün əməl olunmasında özünü göstərir. Şagirdlər dil vahidləri ilə ümumi təhsil, məntiqi və idrak təhsil fəaliyyətlərinin daha da formalaşması üçün əsas olacaq nitq hissələrini tapmaq, xarakterizə etmək, müqayisə etməyi öyrənəcəkdir. Məsələn, qrammatik xüsusiyyətləri bilmək, əsas nitq hissələrini bir- birindən fərqləndirmək və s. verilən tələblərə əməl olunmalıdır. Morfologiyanın öyrənilməsi metodunun xüsusiyyətləri onun öyrənilməsinin məqsədləri ilə müəyyən edilir. Morfologiyanın öyrənilməsinin idrak məqsədi əsas morfoloji konsepsiyaların mənimsənilməsidir. Morfologiyanı öyrənməyin praktik məqsədləri morfoloji vərdiş və bacarıqların formalaşması, bunların əsas hissəsi olan nitq hissələrini ayırmaq və morfoloji təhlil aparmaqdır.

Həmçinin, Azərbaycan dili təhsilində ibtidai siniflərdə morfologiya tədrisi məsələsinin keçirilməsi ilə bağlı metodik ədəbiyyatları təhlil edərkən bir çox metodist və mütəxəssislərin əsərlərinə diqqət yetirmək olar. Bu əsərləri təhlil edən zaman metodistlərin və müəlliflərin morfologiyanı nə qədər geniş şəkildə tədqiq etdiklərini görmək mümkündür.

Metodistlərin morfologiyanın tədrisini hansı şəkildə vermələri, necə bölmələrə ayırmaları şərh olnur.

Şagirdlərin həm də təhlil qaydasını başa düşməsi üçün müəllim onlar ilə birlikdə sözü xarakterizə edərkən niyə belə ardıcıllığı müşahidə etməyin rahat olduğunu tapır. Əvvəlcə sözün hansı nitq hissəsi olduğu, ilkin forması göstərilir. İlkin forma əsasən isimlərin halı, fellərin kateqoriyaları tanınır. Formaları isimdən asılı olan sifətlərin spesifikliyi, sifət ilə isim arasında əlaqə yaratmağı tələb edir.

Nitq hissələri həm şifahi, həm də yazılı şəkildə təhlil olunur. Bu, müstəqil məşq növü ola bilər, ancaq digər iş növlərini də müşaiyət edə bilər. Tam morfoloji analiz aparmaq müddətində cümlədə olan tələbə uyğun olaraq, bu nitq hissəsinin özünə məlum olan bütün xüsusiyyətlərini göstərərək hər sözün xüsusiyyətlərini yerinə yetirir.

Onu da qeyd etmək lazımdır ki, son zamanlarda təlimin məzmununun yeniləşdirilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilir. Bunlara kurikulumun tətbiqini, yeni tədris planlarının, təlim proqramlarının hazırlanmasını, yeni dərsliklərin nəşr olunmasını misal göstərmək olar. Ümumiyyətlə, şagirdlər morfologiyanın tədrisini öyrənməklə bir sıra kompetensiyalara malik olmuşlar. Bunlara morfologiyanın ümumi məsələləri və sözün tərkibi , bütün xüsusiyyətləri nəzərə alaraq nitq hissələrini fərqləndirmək bacarıqlarını aid etmək olar. Hər bir şagirdin borcudur ki, morfologiyanın bölmələrini uyğun və düzgün şəkildə öyrənsin. Onu da qeyd etmək lazımdır ki, morfologiya ilə bağlı məsələlər bu səbəbdən öz aktuallığını itirmir.

Dil həyatımızın hər tərəfində başqa insanlarla olan bütün münasibətlərimizdə bizə vasitəçilik edən və ictimai əlaqələrimizi tənzimləyən bir vasitə kimi mövcuddur. Bir millətin dili onun tarixi,dini və mədəniyyətilə üz-üzədir. Dilçilik dilin qayda-qanunlarını, xüsusiyyətlərini, quruluşunu öyrənən bir elmdir. Dil müxtəlif baxımdan öyrənildiyi üçün ayrı-ayrı sahələrə bölünür. Dilçiliyin fonetika, leksikologiya, morfologiya və sintaksis kimi bölmələri vardır. Dilçiliyin əsas bölmələrindən biri olan qrammatikada sözlərin formaca dəyişməsi və cümlədə birləşməsi qaydaları öyrənilir**.** Qrammatika iki hissəyə bölünür:

1.Morfologiya

2**.** Sintaksis

Morfologiya ilə sintaksis arasındakı əlaqə morfologiyanın sözlərin qrammatik xüsusiyyətlərini öyrənməsi, sözlərin düzəldilməsində iştirak etmək qabiliyyətini təmin etməsi ilə özünü göstərir. Morfologiya ilə sintaksis arasındakı fərq ondan ibarətdir ki, morfologiyanın tədqiqat obyekti sözdür, sintaksisin tədqiqat obyekti cümlədir. Morfologiya eyni sözün müxtəlif formalarının yaranma yollarını araşdırır. İbtidai sinif şagirdləri Azərbaycan dilini öyrənərkən morfologiya da daxil olmaqla müxtəlif bölmələri ilə tanış olurlar. Şagirdlər dil vahidləri ilə ümumi təhsil, məntiqi və idrak təhsil fəaliyyətlərinin daha da formalaşması üçün əsas olacaq nitq hissələrini tapmaq, xarakterizə etmək, müqayisə etməyi öyrənəcəkdir. "Morfologiya" bölməsində göstərilir:

- sözlərin qrammatik xüsusiyyətlərini bilmək;
- müəyyən edilmiş xüsusiyyətləri nəzərə alaraq əsas nitq hissələrini (isim, sifət, fel) fərqləndirmək

Morfologiyanın əsas anlayışları söz forması anlayışı, qrammatik məna, qrammatik kateqoriyalar, və nitq hissələridir. Dilin morfoloji quruluşu bu anlayışlar əsasında təsvir edilmişdir. *Lvov* qrammatik anlayışların formalaşmasında üç mərhələni ayırd edir:

- Birinci mərhələ, dil fenomeninin ən vacib xüsusiyyətlərinin və əlamətlərinin ayrılması və adlandırılması, yığılmış empirik materialın ilkin ümumiləşdirilməsi;
- İkinci mərhələ, nəzəri terminin tətbiqi, konsepsiya tərifinin çıxarılması;
- *"Üçüncü mərhələ, konsepsiyaların sonrakı dərinləşməsi, formalaşan konsepsiyanın əsasında tədqiq olunan fenomenin yeni xüsusiyyətlərinin tanınması və müəyyənləşdirilməsi"* [9, s.168].

Bu anlayışlar əsasında dilin morfoloji quruluşu təsvir olunur. Morfologiya metodologiyası - şagirdlərin nitq hissələrinin öyrənilməsində qrammatik anlayışların və qanunauyğunluqların mənimsənilməsi proseslərini, qarışıqlıq və s. formalarından istifadə praktiki vərdişlərin inkişaf etdirilməsi yollarını öyrənən qrammatika metodologiyasının bölməsidir.

Sözün qrammatik mənasında sözlər tək-tək deyil, nitqdə başqa sözlərlə əlaqəli olur. Bu səbəbdən, hər bir sözün əsas, leksik mənadan başqa, cümlə daxilində bir neçə qrammatik mənası olur. Sözün qrammatik mənası leksik mənasından çoxdur. Məsələn: *Çiçəklər açıldı* cümləsində çiçəklər və açıldı sözlərinin leksik mənası ilə yanaşı, qrammatik mənasınıda görə bilərik. Çiçəklər sözü qrammatik mənasına görə isimdir, cəmdir, adlıq haldadır. Açıldı sözü feildir. Bunlar sözün qrammatik mənalarıdır. Sözün qrammatik mənasının nitqdə əhəmiyyəti böyükdür. Qrammatik məna nitqdə sözün anlaşılmasını dəqiqləşdirir.

İbtidai siniflərdə morfologiya təliminin məzmununa aşağıdakı məsələlər daxil edilmişdir: söz yaradıcılığı üzrə ən əsas məfhumlar – kök, şəkilçi, leksik və qrammatik şəkilçilər, sözlərin quruluşca növləri, nitq hissələri.

Azərbaycan dilində sözlərin strukturu iki hissədən –kök və şəkilçidən, yaxud kök morfemdən, şəkilçi morfemdən ibarətdir.

Kök morfem – sözün qrammatik mənaya malik olub, müstəqil işlənə bilən, müəyyən suala cavab verən, müxtəlif sintaktik vəzifə daşıyan, dilin morfoloji sistemində müəyyən semantik-qrammatik qruplara daxil olan hissəsidir. "…şəkilçilər, eləcə də leksik şəkilçilər sözün qrammatik tərkibində morfem bölgüsünə daxil olur və Azərbaycan sözlərinin tərkibi iki morfemdən ibarət olur.

Şagirdlər kök haqqında anlayışı qohum sözlər üzərində müşahidə əsasında yaranır. Qohum sözlər (gül, gülçü, güldan) şagirdlərdə həmin sözlərin bir obyektə bağlı olması , bütün sözlərin təkrarlanması təsəvvürü yaranmağa başlayır. Şagirdlərdə "kök" və "eyniköklü sözlər" anlayışını formalaşdırmaq üçün müxtəlif misallar verilməlidir.

Söz və onun tərkibi anlayışları ilə şagirdlər I sinifdən praktik olaraq tanış olurlar. Bu işin mahiyyətinə müəllim diqqətlə yanaşmalıdır, çünki uşaqların nitqinin inkişafı, hər şeydən əvvəl söz və anlayışların dərk olunmasından keçir. İbtidai sinif şagirdləri sözdüzəldici və sözdəyişdirici şəkilçiləri bir-biri ilə qarışdırırlar.

Birinci sinifdən şagirdlər oxuduğu mətinlərdə, yazdığı çalışmalarda mürəkkəb sözlərlə qarşılaşırlar. Üçüncü və dördüncu siniflərdə mürəkkəb sözlərin yaranma yolları, deyilişi və yazılışı haqqında bilikləri formalaşır. Mürəkkəb sözlər müxtəlif yollarla yaranır. İbtidai siniflərdə bitişik və defislə yazılan mürəkkəb sözlər üzərində çalısmalar aparılır. Defislə yazılan mürəkkəb sözlərə diqqət ayırmaq lazımdır. İki eyni sözdən əmələ gələn mürəkkəb sözlər (tez-tez, üz-üzə, birdən-birə) verib, onların yazılması üzrə vərdişlər yaradılmalıdır. Müxtəlif sözlərdən ibarət mürəkkəb sözlər (səs-səmir, mer-meyvə, çör-çöp), bir tərəfi məna verməyən birləşmələr üzrə iş aparılır. *"Mürəkkəb sözlərin şüurlu mənimsənilməsi üçün onların əmələgəlmə yollarını şagirdlərə başa salmaq və belə sözlərin yaradılmasına dair çalışmalar vermək lazımdır"* [3, s.344].

İbtidai siniflərdə "Sözün tərkibi" bölməsi "Nitq hissələri" bölməsindən əvvəl öyrədilməklə şagirdlərdə kök və şəkilçi, eyniköklü sözlər, şəkilçilərin növləri; sözdəyişdirici və sözdüzəldici şəkilçilər, şəkilçilər vasitəsilə sözü dəyişmək, yeni söz düzəltmək, sözün quruluşca növləri: sadə, düzəltmə və mürəkkəb sözlər haqqında aydın təsəvvür yaradılır.

İbtidai sinif şagirdləri sözün morfoloji tərkibi ilə II sinifdən tanış olmağa başlayır, III və IV siniflərdə isə ayrı-ayrı bölmələrdə sözün tərkibi, sözün quruluşu və söz yaradıcılığı ilə elmi zəmində tanış olurlar. Bu bölmələrdə müəllim şagirdlərə sözü öz tərkib hissələrinə görə təhlil etməyi öyrətməli, yəni morfemləri müəyyən etmək bacarığını aşılamalıdır.

Söz yaradıcılığı həm qrammatika, həm də leksika ilə sıx surətdə əlaqədar olduğu üçün hər yeni sözün yaradılması onun üzərində müəyyən qrammatik əməliyyatın aparılmasını tələb edir. Buna görə də söz yaradıcılığı qrammatikanın əsas bölmələrindən olan morfologiya ilə əlaqədardır.

Sözün tərkibinə görə təhlili şagirdlər üçün çətinlik törədən mövzulardandır. Məsələn, sözü kök və şəkilçiyə ayırmaqda nöqsanlar, eyniköklü sözlərin düzgün müəyyənləşdirilməsi belə çətinliklərdəndir. Sözün tərkibinin öyrədilməsi prosesində qarşıya çıxan ən böyük çətinlik şagirdlərə "sözdəyişdirici" və "sözdüzəldici" şəkilçilər anlayışları arasındakı fərqin başa salınmasıdır. Əslində, bu məsələ dilçilikdə mübahisəyə məruz qalan məsələlərdəndir. *Professor S.Cəfərov yazmışdır: "Belə bir bölgü şəkilçilərin əsl mahiyyətini, onların əsas funksiyalarını və bütün semantik xüsusiyyətlərini meydana çıxara bilmədiyi kimi, leksika ilə qrammatika arasındakı əlaqə və münasibəti də tamamilə açа bilmir. Həm də dil inkişafının dialektik mahiyyətini sxematikləşdirir"* [2, s. 27].

Azərbaycan dilindən tədris materialının məzmununun şagirdlərin təfəkküründə möhkəmləndirilməsi, keçilənlərin təkrarı və yeni öyrənilən məlumatların yekunlaşdırılması prosesində gedir. Burada qarşıda duran başlıca vəzifə məzmunun şüurlu mənimsənilməsini təmin etməklə şagirdlərdə inteqrasiya aparma, əqli nəticəyə gəlmə bacarıqlarının formalaşdırılmasına xidmət etməkdir. Bu prosesdə şagirdlərin yiyələndikləri pərakəndə fikirlər, az tanış olduqları faktlar təhlil-tərkib olunur, müqayisə edilir, tədricən sadə ümumiləşdirmə aparılır.

Nəticədə şagirdlər kök anlayışına aşağıdakı əlamətləri daxil edirlər: Kök eyniköklü sözlərin ümumi, başlıca mənasını bildirən hissədir. Şəkilçi isə sözün hissəsi olmaqla, yeni sözlər əmələ gətirməyə, cümlədə sözlər arasında əlaqə yaratmağa xidmət edir. Bəzən şagirdlərdə belə bir yanlış təsəvvür yaranır: kök sözün məna verən, şəkilçi isə məna verməyən hissəsidir. Halbuki şəkilçi sözə qoşulduqda bütövlükdə cümlənin mənasını dəyişir, ona yeni məna verir. Bu cəhəti nəzərə alaraq, müəllim şəkilçinin sintaktik rolunu izah etməlidir.

Şəkilçinin mahiyyəti və vəzifəsi haqqında I-II siniflərdə qazanılmış praktik vərdişlər III sinifdə ümumiləşdirilir, sistemə salınır, şagirdlər sözdəyişdirici (qrammatik) və sözdüzəldici (leksik) şəkilçilərlə tanış olurlar.

III sinif şagirdləri "kök" və "şəkilçi" anlayışlarını asanlıqla fərqləndirirlər. Şagirdlərin sözlərin dəyişməyən və ayrılıqda məna verən hissəsinin kök, dəyişən, ayrılıqda məna verməyən hissəsinin isə şəkilçi olduğunu dərk edirlər.

İbtidai siniflərin IV sinif dərsliyində verilmiş nümunəyə nəzər salaq.

Nümunə 1. **3-cü hissədə mavi rənglə verilmiş sözlərin kökünü ayrılıqda yaz. Şəkilçi qəbul edərkən bu sözlərin kökündə hansı dəyişiklik baş verir?**

Bekki sinfə birinci gəlmişdi. O gördü ki, açar siyirmənin üstündədir. Belə bir fürsəti əlindən buraxmağa heyfi gəldi. Yan-yörədə də heç kəs yox idi. Bekki kitabı götürdü. Birinci səhifədəki "Anatomiya" sözlərindən heç bir şey başa düşmədi. Kitabı vərəqləməyə başladı. Açdığı səhifədə rəngli şəkil gördü; bu, insan orqanlarının şəkli idi.

Həmin dəqiqə kiminsə kölgəsi səhifənin üstünə düşdü: Tom Soye qızın çiyni üzərindən kitaba tamaşa eləyirdi.

İbtidai siniflər üçün proqram, şagirdlərin nitq hissələrinin müstəqil və xidmət hissələrinə bölünməsi ilə xüsusi tanış olmağı nəzərdə tutmur, amma praktikada müəllim şagirdlərin diqqətini nitq hissələrinin bu iki qrupa bölündüyü işarələrə yönəldir. Beləliklə, şagirdlər isim, sifət, feil, əvəzlik, zərfin həmişə cümlə üzvü olduqlarını, söz və birlik kimi sözlərin cümlə üzvü olmadığını öyrənəcəklər. Nitq hissələrinin öyrənilməsinin aparıcı vəzifələrindən biri də şagirdlərin söz ehtiyatlarını yeni isim, sifət, feil ilə zənginləşdirmək, şagirdlərin əvvəllər istifadə etdikləri sözlərin mənasını aydınlaşdırmaq və qabiliyyəti inkişaf etdirməkdir.

Şagirdlər III sinifdə ismin ( sifət, feil, əvəzlik, say və zərfin) nitq hissəsi olduğunu öyrənir və nitq hissəsi terminini işlətməli olurlar. "İsim" mövzusunun tədrisi müəllimin qarşısında yeni vəzifələr qoyur. *"Doğal olaraq Azərbaycan dili morfologiyasının tədrisinə isimlərdən başlanılmalıdır və gələcək morfoloji anlayışların mənimsənilməsi səviyyəsi ismin tədrisindən asılıdır"* [1, s. 204 ].

Şagirdlər xüsusi isimlər haqqında anlayışla da ilk dəfə III sinifdə tanış olurlar. Qrammatik baxımdan bu anlayışa yiyələnmək o qədər də çətinlik törətmir, lakin müəllimin bəzi cəhətləri nəzərə alması vacibdir. Xüsusi isimlər öyrədilərkən qarşıya çıxan çətinlik ilk növbədə adam, insan anlayışı ilə onların adı arasındakı münasibətin başa salınmasıdır.

İbtidai siniflərin IV sinif dərsliyində verilmiş nümunəyə nəzər salaq.

Nümunə 1. **Hansı söz yerindən asılı olaraq kiçik hərflə də yazıla bilər?**

A) Məryəm
B) Lalə
C) Məstan

Daha bir III sinif dərsliyindən nümunəyə baxaq.

Nümunə 2. **Uyğunluğu müəyyən etməklə mürəkkəb sözlər düzəlt və dəftərinə yaz.**

gecə düşmən
meşə bir
dost bəy
əl gündüz

Qrammatik biliklərin verilməsi prosesində kəmiyyət kateqoriyası (azlıq və çoxluq) mühüm rol oynayır. Bu ümumi kateqoriya isimdən əlavə digər nitq hissələrinin tədrisi ilə də bağlıdır. Dilimizdə kəmiyyət kateqoriyası yalnız qrammatik əlamətlərlə deyil, sözlərin məzmunu ilə də müəyyən edilir.

Şagirdlər II sinifdə cəmliyin əsas morfoloji vasitələrindən yalnız biri ilə ( -lar, -lər ) tanış olurlar. Bəzi dialekt şəraitində yaşayanlar və azsaylı xalqlar müstəsna olmaqla Azərbaycanın hər yerində şagirdlər cəm şəkilçilərini düzgün qavrayır, onları ahəng qanununa uyğun şəkildə işlədirlər. Dilimizin orfoepik normalarına uyğun olaraq həmin şəkilçilər şifahi nitqdə -rar, -rər (şarrar, şəhərrər); -dar, -dər (atdar, itdər); -nar, -nər (odunnar, günnər) və s. kimi işlənir.

İsmin tədrisində ən mühüm və ən çox vaxt tələb edən məsələ onun hallanmasının öyrədilməsidir. Əgər II sinifdə kim? nə? sualına cavab olan (adlıq hal) sözlər üzərində iş gedirsə, III sinifdə şagirdlər "İsmin cümlədə dəyişməsi" adı altında onun necə hallandığını öyrənirlər. Onlar başa düşürlər ki, isimlər cümlədə başqa sözlərlə əlaqəyə girdikdə dəyişir. Onlar hallanmadakı ardıcıllıqla

hər bir halın sualı (kim? nə? hara? kimin? nəyin? haranın? kimə? nəyə? haraya? kimi? nəyi? haranı? kimdə? nədə? harada? kimdən? nədən? haradan?) ilə tanış olur, onlardan istifadə edərək sözləri dəyişmək və həmin sözləri cümlə içərisində işlətmək üzrə məşq edirlər.

İsmin tədrisi prosesində şagirdlərin nitqinin inkişafı, xüsusilə leksik işlər üzrə çalışmaların aparılması üçün geniş imkanlar açılır. Dərsliklərdən əlavə şagirdləri omonimlər (Qaş qaralır – Üzüyə qaş salırlar), sinonimlər (qəhrəmanlıq, cəsurluq, igidlik, qoçaqlıq), antonimlər (cəsurluq – qorxaqlıq, qəm – sevinc), çoxmənalılıq (əl-ələ vermək – görüşmək, əl eləmək – yola salmaq; ələ salmaq – dolamaq; və s.) üzərində işlətmək lazımdır.

"Sifət" anlayışının mənimsənilməsi üçün şagirdlər II sinifdə "Əşyanın, varlığın necəliyini bildirən sözlər" mövzusu keçilərkən yiyələndikləri bilik, bacarıq və vərdişlərə əsaslanmaqla əlamətin adını bildirən sözləri əşyanın və hərəkətin adını bildirən sözlərdən fərqləndirməyi bacarmalıdırlar.

Əlamətin əşyanın gözlə görünən, keyfiyyətin isə gözlə görünməyən xüsusiyyət olduğunu şagirdlərə başa salmaq lazımdır: forma (yumru, uzun, əyri, yastı və s.), böyüklük (yekə, kiçik, hündür, alçaq, qoca, cavan və s.), insanın xarici görünüşü (topal, çolaq, gülərüz, qozbel və s.), rəng (qırmızı, göy, yaşıl, çəhrayı narıncı və s.), əşyanın əlamətini, dad (dadlı, dadsız, şirin, acı, turş, şor və s.), iy (ətirli, üfunətli və s.), insanın daxili əlaməti (yaxşı, pis, xeyirxah, mülayim, gülərüz, rəhmli, ağıllı və s.) keyfiyyətini bildirir.

II sinifdə dil dərslərində sifət üzrə leksik işlər aparılarkən elə çalışmalardan istifadə edilməli, elə nitq şəraiti yaradılmalıdır ki, şagirdlər müəllimin öyrətmək istədikləri sözləri işlətmək məcburiyyətində qalsınlar.

III sinif dərsliyindən nümunəyə baxaq.

Nümunə 3. **Sifətləri müvafiq isimlərlə birləşdir.**

səmimi müəllim
dağüstü baxış
ürkək münasibət
gülünc park
tələbkar hərəkət

Mürəkkəb sifətlər, onların yazılışı öyrədilməli, sifətin dərəcələri üzrə praktik iş aparılmalıdır. Burada ən, çox, daha sözlərinin mənası üzərində xüsusi iş getməli, məsələn, şagirdlər gözəl, çox gözəl, daha gözəl, ən gözəl söz və ifadələrini düzgün işlətməyi öyrənməli, ən sözünün üstünlüyün zirvəsini bildirdiyini başa düşməlidirlər. Sifətin tədrisi prosesində şagirdlər bitişik və defislə yazılan mürəkkəb sifətlərlə də qarşılaşırlar. Gülərüz, alnıaçıq, zolaq-zolaq, tərtəmiz, al-əlvan və s. kimi sifətlərin yazılışına xüsusi diqqət yetirilməlidirlər.

Uşaqlarda əvəzlik haqqında praktik vərdişlər məktəbəqədər dövrdə yaranır, lakin onlar əvəzliklə bir nitq hissəsi kimi III sinifdə tanış olurlar. Burada əvəzliyin cümlədə isim və sifəti əvəz edə bilməsindən söz açılır. Əvəzliklərin xüsusi sualı olmadığını və yalnız əvəz etdikləri nitq hissələrinin suallarına cavab olduğu izah edilir. Əvəzliyin növləri haqqında, şəxs, işarə, sual əvəzlikləri haqqında məlumat verilir.

Sual əvəzlikləri haqqında məlumat verəndə izah olunur ki, sual cümlələrində, adətən, sual bildirən sözlər işlənir. Məsələn: Hara gedirsən? Dərsdə nə öyrəndin? və s. Sual bildirən sözlər sual əvəzlikləri adlanır. Sual əvəzlikləri ayrı-ayrı nitq hissələrinə və ya cümlə üzvlərinə verilən suallardır. Ona görə də sual əvəzliyi hansı nitq hissəsinin sualından ibarətdirsə, onun da əlamətini daşıyır. Şagirdlərin şəxs əvəzliklərinin tək və cəm olmaqla iki yerə ayrıldığını mənimsəmələri üçün cəm şəkilçiləri haqqında bildikləri təkrar olunmalıdır: Şagird – şagirdlər anlayışından mən-biz; sən-siz; o-onlar anlayışına keçmək asan olur.

1-ci sinifdə şagirdlər şəkilli kartoçkalardan istifadə edərək, əşyanın adını, nə etdiyini bildirən çalışmalar yerinə yetirərək feilin tədrisi üçün zəmin yaradırlar. Feil əşyanın hərəkətini bildirən əsas nitq hissəsidir. Feillər leksik mənasına görə rəngarəngliyi ilə fərqlənir. Onlar əşyanın halını, keyfiyyətini, arasında olan münasibəti bildirir. Şagirdlər 4-cü sinifdə feillərlə birlikdə, isimdən və sifətdən feillərin düzəlməsinidə öyrənməyə başlayırlar. Onlar həmçinin mürəkkəb feillər üzrə məlumat əldə edirlər. Ən maraqlı çalışmalar nitq inkişafı üzrə olan leksik çalışmalardır. Şagirdlərə çoxmənalılıq, sinonim, antonimlərə aid çalışmalar da vermək olar. Zaman anlayışı, indiki, keçmiş, gələcək zaman haqqında bilikləri şagirdlər 3-cü sinifdən mənimsəməyə başlayırlar.

İbtidai siniflərin II sinif dərsliyindən nümunəyə baxaq.

Nümunə 5. **Hərəkət bildirən sözləri uyğun zamanda işlətməklə cümlələri köçürün.**

1. Dünən nənəm bizə **(gəlmək) ... .**
2. Hazırda yağış **(yağmaq) ... .**
3. Sabah mən muzeyə **(getmək) ...**

**Nümunə 6. Hərəkət bildirən sözləri müxtəlif zamanlarda işlədin.**

**Nümunə: yığmaq - yığır, yığdı, yığacaq**

**oynamaq, sürüşmək, gəlmək, demək, yüyürmək, dərmək, getmək, tutmaq**

4-cü sinifdə əvəzliyin bir nitq hissəsi kimi keçirilməsi və bilinməsi feillərin təsrifi üçün zəmin rolunu oynayır. Feil mövzusu keçirildikdən sonra 3-cü və 4-cü sinifdə cədvəl üzrə öyrənilmiş bilikləri ümumiləşdirmək lazımdır. "*Ümumilikdə, Azərbaycan dilinin feilləri zəngin leksik məna, morfoloji əlamət və çoxcəhətli sintaktik xüsusiyyətlərə malikdir"* [7, s. 127].

Hər bir nitq hissəsinin tədrisi başa çatdıqdan sonra yoxlayıcı testlərdən, kartoçkalardan, əldə edilmiş bilikərin tətbiqinə şərait yaradan yaradıcı yazılardan səmərəli şəkildə faydalansın. Nəticə etibarilə, şagirdlər tədrisin sonunda hər hansı problemin icrasında çətinliklə üzləşməsin.

Ümumtəhsil məktəblərini əhatə edən əsas təhsil pilləsi şagirdin həyatında istər özünün dərk etməsi, istərsə də ibtidai təhsil pilləsində qazanılmış bilik və bacarıqların inkişaf etdirilməsində böyük əhəmiyyət kəsb edir. Həmin mərhələ onu cəmiyyətə gərəkli şəxsiyyət kimi formalaşması üçün zəmin yaradır. Bu işdə ən vacib amil şagirddə ana dilinin incəliklərinin, gözəlliklərinin çatdırılmasından ibarətdir. Təsadüfi deyil ki, son illərdə dövlətimizin bu sahəyə qayğısı daha da artmışdı.

Azərbaycan dilinin orta məktəbdə xüsusi həssaslıqla tədris olunması olduqca vacibdir. Bu mənada təhsil haqqında Azərbaycan Respublikasının qanununa (2009) əsasən "Ümumi təhsil pilləsinin dövlət standartları və proqramları (kurikulumları)" (2010) adlı sənəd hazırlanmışdır. Bu sənədə əsaslanaraq "Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün Azərbaycan dili üzrə təhsil proqramı (kurikulum)" işlənib hazırlanmışdır. Sənəddə fonetik, leksik, qrammatik səviyyədə dil xüsusiyyətləri, yazılı və şifahi nitq, dinləyib - anlama bacarıqları, Azərbaycan dilinə, ana dili və dövlət dili kimi hörmət və sevginin daha da artması, ana dilini şüurlu olaraq dərk etməsi və s. kimi məsələlər öz əksini tapmışdır.

Ana dilinin öyrənilməsi şagirdlərin ünsiyyət imkanlarını genişləndirir, onlar da nitq fəaliyyətinin növləri ilə yanaşı, düşünmə, öyrənmə və danışma bacarıqlarını formalaşdırır. nəticədə bu dil düşünmə, öyrənmə, danışma vəsaitinə çevrilir.

Fənn kurikulumunda müəyyən olunmuş ümumi təlim nəticələrini reallaşdırmaq, şagirdlərin əldə edəcəyi bilik və bacarıqları daha aydın təsvir etmək və istiqamətləndirmək üçün, Azərbaycan dili təliminin məqsəd və vəzifələrinə, əsasən, təhsilin bütün pillələri üzrə əvvəldən qeyd etdiyim kimi dörd məzmun xətti müəyyən etmişdir:

I məzmun xəttinə əsasən, danışanı dinləmə bacarığı olmalı, onun fikrinə münasibət bildirməyi, müxtəlif informasiya mənbələrində əldə etdiyi mənbələrdən yararlanmaq, əsas ideyanı müəyyən etmək, fikrini inandırıcı şəkildə təqdim etmək bacarıqları formalaşır.

II məzmun xətti şagirdlərin dil duyumunu inkişaf etdirir, fikrini sərbəst ifadə olunmasını, sözün məna xsüsiyyətlərini, cümlə və mətninin onun nitq duyumundakı rolunun anlamasına kömək etdirir.

Dil qaydaları məzmun xəttti dilin fönetik, leksik və qrammatik qoyluşu ilə bağlı ən zəruri biliklərin konkret, sadə, aydın qaydalar formasında şagirdlərə çatdırlmasını, orfoqrafiya qaydalarına əməl edilməsini, durğu işarələrindən düzgün istifadə olunmasını təmin edir. Şagirdlərin şifahi və yazılı nitq bacarıqlarının mühüm rol oynayan ən zəruri linqvistik biliklərin öyrənilməsi, mədəni nitq üçün vacib sayılan mühüm tələblərin qavranılması, ədəbi dilin funksional və fərdi üslubların səciyyəvi xüsusiyyətlərinin dərk olunaraq fərqləndirilməsi və təcrübədə tətbiqi şagirdlərin bir şəxsiyyət kimi formalaşmasına kömək edir.

İbtidai siniflər üçün fənn kurikulumunda ana dili təlimində dil qaydalarının öyrədilməsində də əldə edilən təlim nəticələri həm ümumi, həm də hər bir sinif üzrə ayrıca tətbiq edilir. Ümumi təlim nəticələri kimi aşağıdakılar nəzərdə tutulmuşdur:

Şagird:

Şagird yaş həddinə uyğun olaraq fonetik, leksik, qrammatik bilikləri nümunələrlə göstərir;

Öyrəndiyi dil qaydalarını qruplaşdıraraq çalışmalar üzərində tətbiq edir; Eşitdiyi fikri anladığını suallara cavab verməklə nümayiş etdirməyi bacarır; Dinləmə bacarığını məsələyə münasibət

bildirməklə nümayiş edirir; Oxuduğu sözlərin məna qrupunu müəllimin köməyi olmadan izah edə bilir.

İbtidai siniflərdə morfologiyanın tədrisində dil qaydaları məzmun xəttinə aid olan məzmun standartları vardır. Bu məzmun standarları əsasında isə müxtəlif alt standartlar tərtib edilərək, kurikulumlara daxil edilmişdir. Məzmun xətləri demək olar ki, bütün təhsil pilləsində dəyişmədiyini artıq bilirik. Məzmun standartları əsasən, alt standartlar isə dərsin məqsədindən dolayı daim dəyişə bilər.

I-IV siniflərdə morfologiyanın tədrisində dil qaydaları ilə bağlı məzmun standartlarını nəzərdən keçirək: I sinfin sonunda şagird: 4. Dil qaydaları

Şagird: 4.1.5. Şagird ad, əlamət, say və hərəkət bildirən sözləri tanıyır və fərqləndirməyi bacarır.

a) Sadaladığı varlıqların hərəkətə aid xüsusiyyətlərini sayır.

b) Mətndən istifadə etməklə eyni sözün ad. əlamət bildirən mənalarını fərqləndirir.

c) Verilmiş əlamətləri və keyfiyyərlərin hansı varlığa aid olduğunu bilirlər.

II sinfin sonunda şagird: 4.Dil qaydaları

Şagird: 4.1. Şagird zəruri dil qaydalarını mənimsədiyini nümayiş etdirir.

4.1.5. Ad, əlamət, say, hərəkət bildirən sözlərin bəzi qrammatik xüsusiyyətlərini müəyyənləşdirir.

a) Ad bildirən sözlərin tək və ya cəm olmasını müəyyən edir. b) Ad bildirən sözlərin ümumi və xüsusi olduğunu müəyyən edir. c) Miqdar və sıra saylarını fərqləndirir.

III sinfin sonunda şagird:4.Dil qaydaları

Şagird: 4.1.4. Cəm şəkilçisinin yazılışı və tələffüzü ilə bağlı qaydaları nitqində tətbiq edir.

4.1.5. Leksik və qrammatik mənalarına görə sözləri adlandırır və fərqləndirir.

IV sinfin sonunda şagird: 4. Dil qaydaları Şagird: 4.1.4. Cümlələrin formalaşmasında cəm şəkilçilərindən düzgün isitifadə edir.

Ana dili standartlarında məntiqi inkişafla sıx bağlı olan 5 problemin-mühakimə yürütmə və əsaslandırma, ünsiyyət, tətbiqetmə, tətqiqetmə bacarıqlarının formalaşmasına xüsusi fikir verilmişdir. Əsas diqqət ona yönəlib ki, ibtidai siniflərdən başlayaraq, hər bir şagird tədris planına daxil olan fənlər üzrə zəruri anlayışlara, müvafiq bacarıqlara yiyələnsin. Müasir təhsilalma prosesində ibtidai siniflərdə istifadə etdiyimiz tədris proqramları, iş dəftərləri, dərsliklər, müəllim üçün metodik vəsait və əlavə təlim vasitələri məzmun xətləri, məzmun standartları və alt standartlar əsasında tərtib edilmişdir. Belə nəticəyə gəlirik ki, hər bir fənn üçün nəzərdə tutulan ümumi təlim nəticələrindən məzmun xətləri, məzmun standartlar və alt standartlar alınır. Morfologiyanın tədrisində bunlardan istifadə edilərək təlim məqsədləri təyin olunur.

Morfologiyanın tədrisində dil qaydaları həm oxu, həm yazı, yeni bir fənnin ayrı-ayrı məzmun xətləridir ki, bunları bir-biri ilə əlaqəli, bir-birinin daxilində, şagirdlərin dil haqqındakı bütöv təsəvvürlərini qurmadan dilin ayrı-ayrı mövzuları arasında sərhəd qoyulmadan tədrisi daha səmərəli, daha nəticəyönümlü olar. Bunu nəzərə alan metodistlər ana dili kurikulumunda bu məsələləri həll etməyə çalışmışlar. Belə ki, müasir tədris prosesində morfologiyaya aid müasir təlim metodları və yeni qiymətləndirmə standartları tətbiq edilməklə mənimsədilməsi nəzərdə tutulur. Eyni zamanda, müasir kurikulum morfologiyaya aid dil qaydalarının təkcə dil qaydaları dərsliyində deyil, həmçinin oxu, yazı, dinləyib-anlama dərslərində də mənimsədilməsini nəzərdə tutur. Bu o deməkdir ki, oxu, yazı, dinləyib-anlama dərsləri morfologiya bölməsində aid mövzularla inteqrasiya edilir. Məsələn, oxu dərsində müəllim mətni oxudarkən orfoepiyaya aid qaydalar tətbiq olunur. Bunlar sait və samitlərin tələffüzünə aid qaydalardır, yəni morfoloji qaydalardır. Və ya mətn oxunub qurtardıqdan sonra müəllim şagirdə həmin mətndəki nitq hissələrini müəyyənləşdirmək, sözdüzəldici və sözdəyişdirici şəkilçilərin və s. tiplərini göstərməklə tapşırıqlar verə bilər. Bunlar fəndaxili əlaqələrdir. Bu əlaqə şagirddə dilin sistemi haqqında vahid təsəvvür formalaşdırır. Şagirdlər morfologiyaya aid əldə etmiş olduğu məlumatlar oxu dərsində təkrarlanır, bilik, bacarıq vərdişə çevrilir və möhkəmlənir. Şagirdin biliyi həmişə nəzarətdə saxlanılır. Çünki bu bilik istifadəsiz qalmış, digər dərslərdə (oxu, yazı, dinləyib-anlama) tətbiq olunur. Bu isim şagirdlərdə məsuliyyət hissini artırır. Onlar morfologiyaya aid məlumatların yalnız dil qaydaları dərslərində deyil, digər dərslərdə də tələb olunduğunu müşahidə edirlər.

NƏTİCƏ: 1. Əldə olunmuş nəticələr arasında ilk növbədə ibtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikasının məqsədinin nədən ibarət olduğunu qeyd etmək vacibdir. İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikasının əsas məqsədi I və IV siniflərdə təhsil alan şagirdlərə bir sıra mühüm bilik, bacarıq və vərdişlər aşılamaqla onların morfoloji biliklərinin formalaşmasına nail olmaqdır. Ana dili təliminin qarşısında duran məqsədlərin düzgün şəkildə həyata keçirilməsi o zaman məlum olur ki, şagirdlər morfologiyaya aid bilikləri düzgün və savadlı şəkildə mənimsənilməsinə nail olsunlar. Bunun üçün də şagirdlərdə hər şeydən əvvəl təlimə maraq və inam yaradılmalıdır. Belə olduqda təlimin qarşısında duran məqsədlərin düzgün şəkildə həyata keçirildiyi məlum olur. 2. Morfologiya Azərbaycan dili kursunda nitq inkişafı ilə bağlı ən maraqlı bəhslərindən biridir. Sözün tərkibi, sözün quruluşu, əsas nitq hissələrinin tədrisi prosesində nitq inkişafının müəyyən istiqamətləri, lüğət ehtiyatının zənginləşdirilməsi üzrə aparılan işlər böyük əhəmiyyət kəsb edir. Hər bir nitq hissəsinin tədrisində yeni sözlərin yaradılması, izahı, cümlə daxilində işlədilməsi şagirdlərin cümlə qurmaq vərdişlərinin inkişafına da kömək edir. 3. Nitq inkişafı üzrə işin təşkilində əsas məsələ cümlələrin yaranmasında, fikrin ifadə olunmasında sözlərin leksik və qrammatik mənalarının düzgün dərk olunması, kök morfemlərin nitqdə oynadığı rolun öyrənilməsidir. Azərbaycan dili dərslərində nitq hissələrinin quruluşca növləri üzrə aparılan praktik işlər leksik şəkilçilərin imkanlarını müəyyənləşdirməkdə şagirdlərə kömək edir. Morfologiyanı keçərkən nitqdə düzəltmə sözlərdən yerində istifadə etməyi, sözləri düzgün oxumağı,hər bir nitq hissəsinə aid sözləri cümlədə işlətməyi bacarması şagirdin nitq inkişafından xəbər verir. 4. İbtidai siniflərdə elə ilk gündən şagirdlərin nitqi izlənilir, müşahidə edilir,nöqsanlar müəyyənləşdirilir və qüsurların aradan qaldırılması araşdırılır. Bu proses morfologiya dair müəyyən həcmdə bilikləri mənimsədikdən sonra asanlaşır. 5. Azərbaycan dili təliminin intensivləşdirilməsi və təlimə marağın yaradılması baxımından, nitq inkişafı üzrə işin morfoloji qaydalarla inteqrasiyasında didaktik oyunlardan istifadə böyük əhəmiyyət kəsb edir. Oyun şagirdlərə zehni itilik aşılayır və nitq inkişafı üçün əlverişlidir. İbtidai siniflərdə dil qaydaları oyun prosesində daha maraqla və həvəslə tədris olunur. Dərsdə rəngarəng oyunlardan istifadə dərsin keyfiyyətini və şagirdlərin fəallığını yüksəldir. 6. Ümumiyyətlə, morfologiyanın tədrisi ilə bağlı aparılan leksik-qrammatik çalışmalar bir tərəfdən sözün leksik mənası ilə qrammatik mənası arasındakı fərqi başa düşməyə imkan verir, digər tərəfdən də şagirdlərin nitqini inkişaf etdirir.

ƏDƏBİYYAT:

1. Balıyev H.B. Azərbaycan dilinin tədrisi metodikası / Bakı Qismət -2014-384 s.
2. Cəfərov S.Ə. Azərbaycan dilində sözdüzəldici və sözdəyişdirici şəkilçilər / Bakı Maarif - 1968-108 s.
3. "İbtidai siniflərdə Ana dilinin tədrisi metodikası" fənnindən mühazirələr (Dərs vəsaiti) / Bakı – ADPU nəşriyyatı – 2019 - 510 s.
4. İsmayılov, R, Orucova. G, Xəlilov, Z. Cəfərova D. Azərbaycan dili (3-cü sinif üçün dərslik) / Bakı Altun Kitab – 2018 - 207 s.
5. İsmayılov R, Abdullayeva S, Qasımova X, Cəfərova D. Azərbaycan dili ( 4-cü sinif üçün dərslik ) / Bakı Altun Kitab – 2019 – 224 s.
6. Kərimov Y.Ş. İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası / Bakı Səda – 2013 - 552 s.
7. Qurbanov V. Azərbaycan dilinin tədrisi metodikası (dərslik) / Bakı: "Müəllim", 2014 – 258 s.
8. Rəhimov A. Ana dilinin tədrisi metodikası (ibtidai siniflərdə) / Bakı: BQU – 2015 – 470 s.
9. Львов М.Р. Методика преподавания русского языка в младших классах: учебное пособие. М.: Академия, 2007, 464 стр.

**İnternet resursları**

**10.http://bqu.edu.az/wp-content/uploads/2019/10/Cild_20.pdf**
**11.https://www.wikimedia.az-az.nina.az/Morfologiya_(linqvistika).html**
**12.http://anl.az/el/Kitab/2017/Azf-293715.pdf**
**13.https://muhaz.org/movzu-muasir-telim-formalaris-usullar-ve-texnikalar-plan-1.html?page=9**

# MULTIKULTURAL TƏHSILDƏ SOSIAL DƏYƏRLƏRDƏN VƏ INNOVATIV TEXNOLOGIYALARDAN ISTIFADƏNIN BƏZI MƏSƏLƏLƏRI

**fəl.f.d. Üzeyir Zeynalov, Jalə Qasımova**
Mingəçevir Dövlət Universiteti
Pedaqogika elmləri
uzeyir.zeynalov@mdu.edu.az
jala.qasimova@mdu.edu.az
Mingəçevir, Azərbaycan

**XÜLASƏ**

Təqdim edilən tədqiqat işində sosial dəyərlərin və innovativ texnologiyaların multikultural təhsildə tətbiqi imkanları araşdırılmışdır. Məqalədə multikultral dəyərlərdən kənarda yaşamağın mümkün olmadığı və sivil cəmiyyətlərin inkişaf etməsi yalnız müxtəlifliklərі qoruyan və onları assimlyasiyasız inteqrasiya edən multikulturalizm siyasətinə bağlı olması müddəası şərh edilmişdir. Eyni zamanda, multikultural təhsil sisteminin inkişafının sosial dəyərlər kontekstindən araşdırılmış və sosial dəyərlərə əsaslanan multikultural təhsilin cəmiyyətdə sosial normaları, davranışları və institutları formalaşdırmaqla yanaşı, təhsilalanların hərtərfli şəxsiyyət kimi yetişməsində həlledici rol oynaması önə çəkilmişdir. Sosial dəyərlərə əsaslanan multikultural təhsilin təhsilalanlara sürətlə dəyişən demoqrafik göstəricilər səbəbilə yaranan bir çox problemlərə cavab verən və müəllimlərə yardım etmək üçün hazırlanan bir fəaliyyət istiqaməti olmaqla yanaşı təhsil materiallarının və metodlarının şaxələndirilməsinə, müxtəlif mədəniyyətlərə istinad edilməsinə və tələbələrin öz mədəniyyətlərini paylaşmasına təkan verildiyi göstərilmişdir. Bu təhsil yanaşması tələbələrə mədəni fərqləri daha yaxşı anlamağa və qlobal vətəndaş kimi böyüməyə kömək edir. O, həmçinin tələbələr arasında empatiya, əməkdaşlıq və ünsiyyət bacarıqlarını təkmilləşdirir və qərəzliyi azaltmağa kömək edə bilər. Bu yanaşma tələbələrə öz mədəni şəxsiyyətlərini gücləndirməyə və öz mədəniyyətlərini dəyərli şəkildə paylaşmağa imkan verir, eyni zamanda onları digər mədəniyyətlərə açıq olmağa və anlamağa təşviq edir. Bu yolla daha inklüziv, ədalətli və tolerant təhsil mühiti yaradıla bilər. Sosial dəyərlərə əsaslanan multikultural təhsil cəmiyyətdə sosial normaları, davranışları və institutları formalaşdırmaqla yanaşı, təhsilalanların hərtərfli şəxsiyyət kimi yetişməsində həlledici rol oynayır. Bərabərlik, ədalət, azadlıq, əməkdaşlıq, müxtəliflik, inklüzivlik, hörmət, məsuliyyət, dürüstlük və tolerantlır kimi sosial dəyərlər multikultural təhsil sistemində kontekstində araşdırılmışdır. Sosial dəyərlər çox vaxt insanın öz hərəkətlərində və qərarlarında şəxsi və kollektiv məsuliyyətinin, dürüstlüyün və dürüstlüyün vacibliyini vurğulayır, cəmiyyətin daha böyük rifahına töhfə verir.

**AÇAR SÖZLƏR:** multikultural təhsil-1, sosial dəyərlər-2, innovativ texnologiyalar-3

**ABSTRACT**

The possibilities of applying social values and innovative technologies in multicultural education have been explored in the presented research work. The article comments on the impossibility of living outside multicultural values and emphasizes the necessity for civil societies to adhere to multiculturalism policies that preserve diversity and integrate them without assimilation. Furthermore, the development of multicultural education system is examined within the context of social values, highlighting its pivotal role not only in shaping social norms, behaviors, and institutions but also in fostering well-rounded individuals within the society. It is demonstrated that multicultural education based on social values not only addresses numerous problems arising from rapidly changing demographic indicators and aids teachers but also emphasizes the development and utilization of educational materials and methods, drawing on various cultures and encouraging students to share their own cultures. This educational approach helps students better understand cultural differences and aids in their growth as global citizens. Additionally, it enhances empathy, collaboration, and communication skills among students and can help reduce prejudice. This approach empowers students to strengthen their cultural identities and share their cultures in a valued manner while encouraging openness to and understanding of other cultures, thus fostering a more inclusive, just, and tolerant educational environment. Social values such as equality, justice, freedom, collaboration,

diversity, inclusivity, respect, responsibility, honesty, and tolerance are examined in the context of the multicultural education system. Social values often highlight the personal and collective responsibility, honesty, and integrity in one's actions and decisions, contributing to the greater welfare of society.

**KEY WORDS:** multicultural education-1, social values-2, innovative technologies-3

## GİRİŞ

**MÖVZUNUN AKTUALLIĞI:** Məlum olduğu kimi, multikulturalizm siyasəti, XX əsrin 60-cı illərindən başlayaraq Avropa ölkələrində immiqrasiya proseslərinin nəticəsi kimi ortaya çıxmışdır. Hal-hazırda bir çox cəmiyyətlər etnik, irqi, dini, gender, sosial fərqliliklərlə zəngin olduğundan onların multikultural dəyərlərdən kənrda yaşamalı mümkünsüz görsənir və başqa alternativ inkişaf yollar yoxdur. Multikulturalizm siyasətindən imtina, bu cəmiyyətlərin dağılmasına və münaqişələrin başlamasına səbəb ola bilər. Bir çox cəmiyyətlərin əksəriyyətində müxtəliflik elə bir səviyyədədir ki, orada dövlət səviyyəsində vahid etnik-dini ideologiyadan danışmaq zərərlidir. Bu cəmiyyətin qorunması və inkişaf etməsi yalnız müxtəlifliklərı qoruyan və onları assimlyasiyasız inteqrasiya edən multikulturalizm siyasətinə bağlıdır. Lakin, fərdin hüquq və azadlığına bağlı olan liberal millətçilik paradiqması, fərqli sosial qrupların hüquqları prinsipinə əsaslanan multikulturalizm siyasəti ilə toqquşur. Bu durum, bir çox tədqiqatçılar tərəfindən liberalizmin iflası kimi dəyərləndirilir. Buna görə də, liberalizm ilə multikulturalizmin kəsişdiyi orta məxrəcin tapılması istiqamətində tədqiqat işləri artır. Belə cəmiyyətlərdə təhsil sahəsi də multikultural dəyərlərdən kənarda inkişaf edə bilməz. Multikultural təhsil nədir? Multikultural təhsil müxtəlif mədəniyyətlərdən olan təhsilalanların təhsil mühitində bir araya gələrək birlikdə öyrənmə təcrübələri keçirdikləri yanaşmaya aiddir.Bu yanaşma mədəni müxtəlifliyi bir sərvət kimi tanıyır və tələbələrə müxtəlif mədəni fonlardan olanları başa düşməyə və onlara hörmət etməyə və mədəni fərqlərlə effektiv şəkildə məşğul olmağa imkan verir.

**MÖVZUNUN İŞLƏNMƏ SƏVİYYƏSİ:** Multikultural təhsil sahəsində bir çox yerli və xarici alim və tədqiqatçılar önəmli töhfələr verməyə çalışmışdır. James A. Banks multikultural təhsilin əsaslarını qoyanlardan və bu sahədə ən tanınmış alimlərdən biri olaraq, mədəniyyətlərarası təhsilin nəzəriyyələrinin və praktikalarının inkişafına dəyərli töhfələr vermişdir (James.A.Banks 2021). Multikultural təhsil və tədqiqat sahəsində önəmli işlərə imza atan Carlos J. Ovando özünün əsərləri ilə mədəniyyətlərarası təhsilin praktiki aspektləri və mədəni dəyərlərə həsr olunmuş təlim metodları barədə dəyərli məlumatlar təqdim edib. Tədqiqatçı Geneva Gay öz araşdırmasında təhsilin çeşitlilik və inklüziv məsələləri ilə maraqlanaraq, mədəniyyətlərarası təhsilin praktikasında və təlim metodlarında uyğunlaşma və çeşidliliyin əhəmiyyətinə diqqət yetirmişdir. Bu alimlər və daha bir çoxu, multikultural təhsilin və mədəniyyətlərarası təhsilin əhəmiyyətini, ən yaxşı praktikalarını və təlim metodlarını araşdıraraq bu sahədə qeyri-müəyyən bir təsir qoymuşdur. Azərbaycanlı tədqiqaçıları arasında professor Ə.Məmmədov öz araşdırmalarında təhsilin mədəniyyətlərarası aspektlərinə diqqət yetirmiş və mədəniyyətlərarası təhsilin keyfiyyətini və məzmununu önə çəkmişdir. Dosent A.Rəhimlinin tədqiqatları təhsilin diversifikasiyası və mədəniyyətlərarası təlim metodlarının tətbiqi barədədir. Dosent N.Hacızadə tədqiqatlarını mədəniyyətlərarası təhsilin dəyərlərə və inançlara həsr olunmuş təlim metodları istiqamətində aparmışdır. Bu alimlər və daha bir çoxu, Azərbaycan ərazisində multikultural təhsil və mədəniyyətlərarası təhsil sahəsində araşdırmalar apararaq bu sahədə fəal iştirakçılar olmuşlardır. Özəlliklə, Azərbaycanın müxtəlif mədəniyyət və etnik qruplarına sahib olması, bu sahədə tədqiqatlar aparan alimlər üçün zəngin bir mühit təşkil edir.

**MƏQSƏD VƏ VƏZİFƏLƏR:** Tədqiqat işində aşağıdakı məqsəd və vəzifələr qoyulmuşdur:

- multikultural təhsilin özünəməxsus cəhətlərini araşdırmaq;
- sosial dəyələr anlayışına sosial-pedaqoji baxış;
- sosial dəyərlərin multikultural təhsilin inkişafında rolunu müəyənləşdirmək;
- multikultural təhsildə innovativ təlim texnologiyalarında istifadə yolları

**I FƏSİL**: Multikultural təhsil, şagirdlərə, tələbələrə sürətlə dəyişən demoqrafik göstəricilər səbəbilə yaranan bir çox problemlərə cavab verən və müəllimlərə yardım etmək üçün hazırlanan bir fəaliyyət istiqamətidir. Multikultural təhsil nəinki tələbələrin mədəni fərqlərini tanıyır, həm də təhsil mühitlərini bu fərqlərə təsir edir. Bu, təhsil materiallarının və metodlarının şaxələndirilməsinə, müxtəlif mədəniyyətlərə istinad edilməsinə və tələbələrin öz mədəniyyətlərini paylaşmasına təkan verir. Bu təhsil yanaşması tələbələrə mədəni fərqləri daha yaxşı anlamağa və qlobal vətəndaş kimi böyüməyə kömək edir. O, həmçinin tələbələr arasında empatiya, əməkdaşlıq və ünsiyyət bacarıqlarını

təkmilləşdirir və qərəzliyi azaltmağa kömək edə bilər ( Abdullayev 2016). Multikultural təhsil təhsil müəssisələrində və cəmiyyətdə mədəni müxtəlifliyin qeyd edilməsi və dəstəklənməsi üçün mühüm alət hesab olunur. Bu yanaşma tələbələrə öz mədəni şəxsiyyətlərini gücləndirməyə və öz mədəniyyətlərini dəyərli şəkildə paylaşmağa imkan verir, eyni zamanda onları digər mədəniyyətlərə açıq olmağa və anlamağa təşviq edir. Bu yolla daha inklüziv, ədalətli və tolerant təhsil mühiti yaradıla bilər. Multikultural təhsildə sosial pedaqoji dəyərlər müxtəlif mədəni fonlardan olan şəxslərin təhsili və inkişafına rəhbərlik edən prinsiplərə, inanclara və etikaya istinad edir. O, müxtəlif mədəni kimliklərə, təcrübələrə və perspektivlərə hörmət edən yanaşmanı təşviq edir, sosial pedaqogika isə fərdlərin hərtərəfli inkişafını və rifahını dəstəkləməyi hədəfləyir. Multikultural təhsildə sosial pedaqoji dəyərlərdən bəziləri bunlardır:

- Müxtəlifliyə hörmət: multikultural təhsildə sosial pedaqoji dəyərlər müxtəlif mədəni, etnik və dil mənşəli şəxslərin dəyərlərinə, inanclarına və şəxsiyyətlərinə hörmət etməyi əhatə edir. Bu dəyərə hər bir fərdin unikallığını qəbul etmək və onu sərvət kimi görmək daxildir.
- Bərabərlik və ədalət: multikultural təhsildə sosial pedaqoji dəyərlər bərabərlik və ədalətin vacibliyini vurğulayır. Fərdlər arasında ayrı-seçkilik və bərabərsizliyə toxunaraq, hər kəsin təhsilə və imkanlara bərabər çıxış hüququ olduğunu müdafiə edir.
- Empatiya və anlaşma: sosial pedaqoji dəyərlər empatiya və anlayışı təşviq edir. Bu, müxtəlif mədəni keçmişi və təcrübələri olan fərdlər arasında qarşılıqlı anlaşma və əməkdaşlığı gücləndirmək məqsədi daşıyır.
- Ünsiyyət və əməkdaşlıq: sosial pedaqoji dəyərlər arasında səmərəli ünsiyyət və əməkdaşlıq multikultural təhsildə vacibdir. O, fərdlər arasında açıq və hörmətli ünsiyyəti təşviq edərkən öyrənmə və inkişaf üçün əməkdaşlıq mühiti yaradır.
- Mədəni səriştə: sosial pedaqoji dəyərlər pedaqoqları və mütəxəssisləri müxtəlif mədəni kontekstlərə qarşı həssaslıq və anlayışı inkişaf etdirməyə təşviq edir. Bu, təhsil və xidmətlərin fərdlərə uyğun və effektiv şəkildə çatdırılmasını təmin edir.
- Sosial iştirak: multikultural təhsildə sosial pedaqoji dəyərlər fərdlərin sosial həyatda iştirakını təşviq edir. Demokratik proseslərdə iştiraka təkan verir, eyni zamanda onları fəal vətəndaş olmağa sövq edir (Həbibbəyli 2013).

Sosial dəyərlərin dərk edilməsi və onların sosial-pedaqoji perspektivi insanların bir-biri ilə münasibətlərini, onların cəmiyyətdəki rol və vəzifələrini başa düşmək və öyrənmək üçün mühüm məsələdir. Sosial dəyərlər insanlar arasında münasibətlərin formalaşmasında, münasibətlərin inkişafında və cəmiyyətdə məsuliyyət hissinin yaradılmasında mühüm rol oynayır. Sosial-pedaqoji perspektiv bu dəyərlərin tərbiyəsi, inkişafı və həyata keçirilməsinə diqqət yetirir. Sosial-pedaqogika təhsil və təlim sahəsində insanların öz sosial mühitini dərk etmələrini təkmilləşdirmək məqsədi daşıyır. Bu perspektiv insanların özlərini və bir-birləri ilə münasibətlərini başa düşmək və müəyyən dəyərləri yaşamaq və öyrətmək ilə əlaqədardır. Bu, tələbələrin cəmiyyətdə iştirakı, onların sosial mövqeyi və məsuliyyətlərinin dərk edilməsi, digər insanlarla münasibətlərin idarə edilməsi, münaqişələrin həlli kimi məsələləri əhatə edir. Sosial dəyərlərə əsaslanan multikultural təhsil cəmiyyətdə sosial normaları, davranışları və institutları formalaşdırmaqla yanaşı, təhsilalanların hərtərfli şəxsiyyət kimi yetişməsində həlledici rol oynayır. Bərabərlik və ədalət kimi sosial dəyərlər bir çox təhsilalanların mənşəyindən, kimliyindən və ya sosial-iqtisadi vəziyyətindən asılı olmayaraq bütün fərdlər üçün ədalətli rəftar və imkanlar təmin etməyə çalışır, bərabərlik və ədalət dəyərlərini dəstəkləyir (Полуянов 2012 ). Azadlıq dəyəri fərdlərin özlərini ifadə etmək, öz maraqlarını həyata keçirmək və hakimiyyət orqanlarının əsassız müdaxiləsi və ya ictimai məhdudiyyətlər olmadan seçim etmək hüquqlarını dəstəkləyir. Ən mühüm sosial dəyərlərdən olan əməkdaşlıq icma bağlarının, əməkdaşlığın və qarşılıqlı dəstəyin vacibliyini vurğulayır və aidiyyət hissini və başqalarının rifahı üçün kollektiv məsuliyyəti təşviq edir. Multikultural cəmiyyətlərdə müxtəliflik və inklüzivlik dəyərləri çox mühüm məzmun daşıyır. Belə ki, bir çox cəmiyyətlər mədəniyyət, etnik mənsubiyyət, din, gender, cinsi oriyentasiya və şəxsiyyətin digər aspektlərindəki fərqlərə hörmət etməyin və qəbul etməyin vacibliyini dərk edərək müxtəliflik və inklüzivliyə üstünlük verir. Başqalarının hüquqlarına, inanclarına və perspektivlərinə hörmət dinc yanaşı yaşama və anlaşmaya kömək edən fundamental sosial dəyər hörmətlə yanaşmadır. Tolerantlıq isə fikir ayrılıqları ilə razılaşmadıqda belə, onları qəbul etməyi və onlara hörmət etməyi ehtiva edir. Sosial dəyərlər çox vaxt insanın öz hərəkətlərində və

qərarlarında şəxsi və kollektiv məsuliyyətinin, dürüstlüyün və dürüstlüyün vacibliyini vurğulayır, cəmiyyətin daha böyük rifahına töhfə verir (Bjarstig , Stens 2018).

**II FƏSİL:** Multikultural təhsildə innovativ texnologiyalar təlim proseslərinin daha effektiv, interaktiv olmasına yönəlmiş müxtəlif alətlər və platformaları əhatə edir. Bu texnologiyalar tələbələrin müxtəlif mədəniyyətlərə malik olmasına baxmayaraq, təhsildən maksimum fayda əldə etməyə imkan verə bilər. Bu sahədə innovativ texnologiyalardan bəzi nümunələr:

✓ Dil öyrənmə proqramları: innovativ dil öyrənmə proqramları tələbələrə müxtəlif dilləri və mədəniyyətləri öyrənmək üçün interaktiv və əyləncəli mühit təklif edir. Bu proqramlar süni intellektlə dəstəklənən dil öyrənmə üsulları ilə tələbələrə dil bacarıqlarını təkmilləşdirməyə kömək edir.

✓ Mədəni qarşılıqlı platformalar: tələbələrə müxtəlif mədəniyyətlərlə qarşılıqlı əlaqə qurmağa imkan verən onlayn platformalar öyrənmə təcrübəsini zənginləşdirir. Bu platformalar tələbələrə müxtəlif ölkələrdən olan həmyaşıdları ilə ünsiyyət qurmağa və mədəni mübadiləsi təcrübədən keçirməyə imkan verir.

✓ Adaptiv öyrənmə texnologiyaları: adaptiv təlim texnologiyaları tələbələrin fərdi öyrənmə ehtiyaclarına və tempinə uyğunlaşdırılmış məzmun təqdim edir. Bu yolla, müxtəlif mədəniyyətlərdən olan tələbələr öz öyrənmə proseslərini daha effektiv idarə edə bilərlər.

✓ Multimedia məzmunu: videolar, animasiyalar, interaktiv simulyasiyalar kimi multimedia məzmunu tələbələrə müxtəlif mədəniyyətləri, dilləri və ənənələri maraqlı və cəlbedici şəkildə kəşf etməyə kömək edə bilər. Bu, onların perspektivlərini genişləndirə və mədəniyyətlərarası anlaşmanı gücləndirə bilər.

✓ Onlayn əməkdaşlıq alətləri: video konfrans, müzakirə forumları və birgə sənəd redaktə alətləri daxil olmaqla texnologiya ilə dəstəklənən əməkdaşlıq platformaları müxtəlif mədəni mənşəli tələbələrə coğrafi yerlərindən asılı olmayaraq layihələr üzərində birgə işləməyə, ideyaları bölüşməyə və tapşırıqlar üzərində əməkdaşlıq etməyə imkan verir.

✓ Rəqəmsal hekayə platformaları: rəqəmsal hekayə anlatma vasitələri tələbələrə öz hekayələrini, şəxsi təcrübələrini və mədəni irsini multimedia təqdimatları, bloqlar, podkastlar və ya rəqəmsal incəsənət vasitəsilə yaratmaq və bölüşmək imkanı verir. Bu, tələbələr arasında özünü ifadə etməyi, mədəni qüruru və empatiyanı təşviq edir (Nəzərov 2012).

Hər hansı bir millətin mədəniyyəti dünyanın digər xalqlarının mədəniyyətləri ilə qarşılıqlı əlaqədə olursa daha zənginləşir. Mədəniyyət, cəmiyyət kimi, dəyərlər sisteminə əsaslanır. Multikultural təhsil öyrənənlərdə sosial-mədəni davranışın və dəyərlərin formalaşdırılması üçün mühüm əhəmiyyətə malikdir. Azərbaycan universitetlərində təhsil alan digər xalqların nümayəndələri üçün bərabər imkanlar və onların sərbəst təhsil almaları üçün hər cür şərait yaradılmışdır. Xarici tələbələr tərəfdən Azərbaycan dilinin mənimsənilməsi prosesi yaşadığları ölkənin etnik, sosial və mədəni biliklərinin xarakterindən asılıdır. Dilin vasitəsilə xarici tələbələr ölkənin reallığını daha yaxşı başa düşür və yeni bir milli mədəniyyətə daxil olurlar. Təhsilin insanın səxsiyyət kimi formalaşmasında, dünyagörüşünün artmasında, cəmiyyətə yararlı fərd və inteqrasiya olmasında böyük rolu var. Azərbaycan müxtəlif xalqların, etnik qrupların, dinlərin, mədəniyyətlərin mövcud olduğu bir ölkə kimi dünyanın əsas multikulturalizm mərkəzlərindən biri kimi qəbul edilir və respublikada çoxsaylı xalqların bir yerdə yaşamaları və müxtəlif mədəniyyətlərin əlaqələrin qorunub saxlanılması dövlətimizin apardığı siyasət sayəsində mümkün olmuşdur. Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə multikultural ənənələrin həyata keçirilməsi üzrə aparılan siyasi kurs bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

**Tədqiqat metodları:** Tədqiqatın elmi metodları empirik və nəzəri dərketmə anlayışları səciyyələndirir. Məqalədəki məlumatların çoxu multikultural təhsil , sosial pedaqogika və sosial dəyərlərlə bağlı əvvəlki tədqiqatlardan əldə edilmişdir. Ədəbiyyatın təhlili mövcud məlumatları toplamaq, sintez etmək və qiymətləndirmək üçün istifadə olunan ümumi bir üsuldur. Aparılan tədqiqatlarda müşahidə ümumiyyətlə mühüm məlumat toplama üsuludur. İnsanların sosial qarşılıqlı əlaqəsini, multikultural dəyərləri davranışları və münasibətləri birbaşa müşahidə edilmişdir.

**NƏTİCƏ:** Məqalənin sonunda əldə olunan nəticələr aşağıdakılardır:

- Təhsilalanların müxtəlif mədəniyyətlərə mənsub olduqlarını nəzərə alaraq, münasibətlərin, ünsiyyətin, qarşılıqlı anlaşma, öyrənənlər arasında hörmət, fərqli milli mədəniyyətlərinə maraq və təsdiq tolerantlıq mühitinin yaradılmasına imkan verir;

- Təhsilalanlara etnik qrupların sosial-siyasi vəziyyətini dərk etdirmək, digər xalqların milli-mədəni normalarına, inanclarına və adət-ənənələrinə hörmət etməyin əhəmiyyətini artırır;
- Mədəniyyətlərarası dialoqun aparılması, başqa bir mədəniyyətə məxsus olan fərdin anlamasına, onu qəbul etməsinə, dəstəkləməsinə və mədəniyyətini zənginləşdirməsinə və ümumilikdə şəxsiyyətlərin formalaşmasına imkan verir ki, bu da yüksək səviyyəli, mədəni, hərtərəfli mütəxəssisin hazırlanmasına töhfə verir;
- Təhsilverənlər şagirdlərə və tələbələrə mədəniyyət müxtəlifliyi anlayışını anlatmalıdırlar ki, bu da başqa xalqların dil və mədəniyyətlərinə, milli-mənəvi dəyərlərinə hörmət hissini, multikultural cəmiyyətində mədəniyyətlər arasında qarşılıqlı əlaqəni formalaşdırsın, nəticədə təhsilalanlarda multikultural tərbiyənin həyata keçirmək bacarıqlarının inkişafına şərait yaratsın;
- İnnovativ təlim texnologiyalardan səmərəli istifadə multikultural təhsildə tələbələrə mədəni fərqləri başa düşmək və qiymətləndirmək və birgə işləmək bacarıqlarını inkişaf etdirməyə kömək edə bilər. Bununla belə, bu texnologiyaların uğurla tətbiqi üçün müəllimlərin və təhsil müəssisələrinin müvafiq təlim və resurslara çıxışı təmin edir;
- Hazırda ölkəmizin təhsil sahəsində multikultural dəyərlərin formalaşdırılması istiqamətində atdığı addımlar dünya dövlətlərinin diqqət mərkəzindədir. Multikultural təhsilin gənc nəslin tərbiyəsində rolu böyükdür. Ulu öndər H.Əliyev hər bir xalqın mədəniyyətinin inkişafında ziyalıların böyük rolu olduğunu və bu sahədə onların üzərinə ciddi vəzifələr düşdüyünü dəfələrlə qeyd etmişdir. Azərbaycanda qloballaşma prosesinin sürətlənməsi müasir sosial cəmiyyəti xarakterizə edən kommunikativ bacarıqların inkişafına zəmin yaradır.

**ƏDƏBİYYAT SİYAHISI**

1. Abdullayev K. Multikulturalizm siyasətinin nikbinlik və bədbinlik qütbləri. / "Respublika" qəzeti, 13 aprel 2016-cı il, 2-5 səh.
2. Bakı Beynəlxalq Humanitar Forumunun materialları – Bakı: “ŞərqQərb”, 2014, 2 cilddə, I cild, 368 səh.
3. BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumunun rəsmi açılışında Prezident İlham Əliyevin nitqi /26 aprel 2016-cı il/ - http://www.president.az/articles/19727 2.
4. Bjarstig T, Stens A (2018) Social values of forests and production of new goods and services: the views of swedish family forest owners. Small Scale For 17(1):125–146. https://doi.org/10.1007/s11842-017-9379-9
5. Борейко В.Е. Экологическая этика. – М.:Изд-во МНЭПУ,2012 – 58-112 с.
6. Entzinger H. The Rise and Fallof Multiculturalism: The Case of the Netherlands. /Edited by C.Joppke and Morawska E. In Toward Assimilation and Citizenship: Immigrants in liberal nation-states. New York: Palgrave, 2003. 225 p.
7. Həbibbəyli Ə. Multikulturalizm: bəşəri ideya, yaxud Qərb dəyərləri, Qlobal siyasət: təhdidlər, çağırışlar, ümidlər. Newtimes /məqalələr toplusu/. Bakı: Qanun 2013-20 səh.
8. Kissinger H. World Order. New York: Penguin Press, 2014, 420 p. 6. Осборн Р. Цивилизация. Новая история Западного мира / Пер. с англ. М.Колопотина/. -Москва: АСТ МОСКВА: Хранитель, 2008, 764 с.
9. Nəzərov A. M. Müasir təlim texnologiyaları. Dərs vəsaiti. ADPU-nəşriyyatı. Bakı-2012. 48-103 səh
10.Полуянов В. П Система Социально-Экологических Ценностей Человека Изд-Во Мнэпу,2012. – С. 85-112.
11.Robin Wall Kimmerer. Braiding sweetgrass: indigenous wisdom, scientific knowledge and the teachings of plants, Published 2013 by Milkweed Editions 468p.
12.James. A. Banks. An introduction to multicultural education, An Published 2021, 12-193 p.

# TƏHSILALANLARIN IDRAK SFERALARININ INKIŞAF ETDIRILMƏSINDƏ "SKAMPER" TEXNIKASININ ƏHƏMIYYƏTI

**ABDULLAYEVA GÜLNAR MİRZƏAĞA QIZI**
ADU-nun pedaqogika kafedrasının baş müəllimi
BDU-nun pedaqogika kafedrasının dissertantı
Pedaqogika
*kerimzadeh85@mail.ru*
BAKI, AZƏRBAYCAN

**XÜLASƏ**

Müasir təhsilin əsas məqsədlərindən biri təhsilalanlarda yaradıcı təfəkkür bacarıqlarını inkişaf etdirməkdir. Divergent düşüncə, təxəyyül, orijinallıq və intuisiya yaradıcı təfəkkürün vacib aspektləridir. "Skamper" yaradıcı təfəkkürü inkişaf etdirmək üçün nəzərdə tutulmuş asan həyata keçirilən beyin fırtınası texnikasıdır. Bu texnika, öyrənənlərə fərqli düşünmək, xəyal qurmaq və intuisiyalarından istifadə edərək orijinal məhsullar yaratmaq imkanı verir. Yeni ideyalar yaratmaq asan proses deyil. "Skamper" texnikası yeddi növ sual verməklə yeni ideyaların yaranmasına təkan verən yaradıcı düşünmə texnikasıdır. Metodologiyası mövcud məhsulun dəyişdirilməsi (yenilənməsi) ideyasına əsaslanır. "Skamper" tədqiq olunan problemin xüsusiyyətlərindən asılı olmayaraq hər bir hərfin mənasını ifadə edən sözlərdən ibarət abbreviaturadır. "Skamper" metodologiyasının hər bir addımı problemə və ya ideyaya müxtəlif rakurslardan baxmaq, onu təkmilləşdirmək və ya inkişaf etdirmək üçün yeni yollar axtarmağa imkan verir. Bu, yaradıcı düşüncəni stimullaşdırmağa, yeni imkanlar tapmağa və innovativ həllər yaratmağa kömək edir. "Skamper" metodologiyasındakı hər bir addım mövcud ideya, məhsul və ya prosesin elementlərini əvəz etmək imkanlarının tapılması məqsədi daşıyır. Burada əsas məqsəd ideyanı təkmilləşdirmək və ya istədiyiniz nəticələrə nail olmaq üçün komponentlərin yeni və ya fərqli məhsul (element və komponent) ilə əvəz edilə biləcəyini nəzərdən keçirməkdir.

**AÇAR SÖZLƏR:** Skamper texnikası, müasir təhsil modeli, Skamperin tətbiqi mərhələləri, kreativ məhsul

**SUMMARY**

One of the main goals of modern education is to develop creative thinking skills in students. Divergent thinking, imagination, originality and intuition are important aspects of creative thinking. "Scamper" is an easy-to-implement brainstorming technique designed to develop creative thinking. This technique empowers learners to think differently, dream and create original products using their intuition. Generating new ideas is not an easy process. The Scamper technique is a creative thinking technique that stimulates the generation of new ideas by asking seven types of questions. The methodology is based on the idea of changing (updating) the existing product. "Scamper" is an acronym consisting of words that express the meaning of each letter, regardless of the characteristics of the problem under investigation. Each step of the Scamper methodology allows you to look at a problem or idea from different angles, looking for new ways to improve or develop it. It helps to stimulate creative thinking, find new opportunities and create innovative solutions. Each step in the Scamper methodology aims to find opportunities to replace elements of an existing idea, product or process. The main goal here is to consider whether components can be replaced with a new or different product (item and component) to improve the idea or achieve the desired results.

**KEYWORDS:** scamper technique, modern education model, stages of scamper application, creative product

## GİRİŞ

Şagirdlər məktəblərdə hər hansı ictimai fəaliyyətə, sosial məşğuliyyətə, real həyat probleminin həllinə yönəldilmiş fəaliyyətlərin icrasına cəlb edilməli və bu fəaliyyətin yerinə yetirilməsi zamanı zəruri olan bilikləri öyrənməlidirlər.

**Con Dyui**

Bir çox qabaqcıl ölkələrdə, o cümlədən Azərbaycanda təhsilin beynəlxalq standartlara uyğunluğunu təmin etmək məqsədi ilə davamlı olaraq təhsilin müasirləşdirilməsi həyata keçirilir. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il, 29 dekabr tarixli fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2013-2020 – gələcəyə baxış" inkişaf Konsepsiyası təhsildə yeni təlim texnologiyalarından geniş istifadəni tələb edir[6...]. Bu konsepsiya təhsilin inkişafı üçün paradiqmaları aydın şəkildə əks etdirir. Bu sahədə təhsilin informasiyalaşdırılmasına geniş yer verilməsi, distant təhsilin geniş tətbiqi, metodlardan, texniki vasitələrdən, elektron lövhələrdən, xüsusilə də müasir təlim texnologiyalarından istifadə edilməsinə geniş yer verilməsi tələb olunur. Yeni təlim texnologiyalarının tətbiqinin genişləndirilməsi ilə təhsil sisteminin idarə edilməsində şəffaflığın artırılmasına səbəb olur. O cümlədən, "Scamper" yanaşması təhsilalanları mövcud məhsulları, xidmətləri, problemləri və ideyaları kəşf etməyə kömək edəcək yeddi müxtəlif növ sual verməyə təşviq edir. Problemləri araşdırmaq və cavab tapmaq üçün əvəz etmək, birləşdirmək, uyğunlaşdırmaq, dəyişdirmək, yenidən təyin etmək, aradan qaldırmaq və istiqaməti dəyişdirmək kimi fellərdən istifadə edə olunur. Bu, öyrənənləri yeni məhsul və xidmətlər üçün ideyalar irəli sürməyə təşviq edir..

"Skamper" texnikası beyin həmləsi texnikasının ixtiraçısı Alex Osborn (1953) tərəfindən yaradılmış, 1970-1971-ci illərdə Bob Eber tərəfindən inkişaf etdirilmişdir. B.Eber "Skamper:təxəyyülün inkişafı üçün oyunlar"("Scamper: games for developing the ımagination") kitabında bu konsepsiyanı ətraflı izah etməyə çalışmışdır (Clements, 2004).

Təlim prosesinə "Skamper" texnikasının tətbiqi kompleks məqsədlər vasitəsilə təzahür edir. "Skamper" texnikası öyrənənlərdə:

- *yaradıcı təfəkkürü inkişaf etdirir;*
- *fərqli düşünmək, təsəvvür etmək və intuisiyalarından istifadə edərək orijinal məhsullar yaratmaq şansı qazandırır;*
- *real həyat və məktəb arasında əlaqə yaratmaq imkanı verir;*
- *əşya, fotoşəkil və s. vasitəsilə qrup qarşısında özünü ifadə etmək, başqalarını dinləmək, suallar hazırlamaq və müqayisələr aparmaq, onların nitq inkişafına dəstək olmaq məqsədi daşıyır;*
- *yaradıcılığı inkişaf etdirmək, öyrənənlərə yeni məhsul icad etmək üçün stimul verir.*

Tədris prosesində "Skamper" texnikasından istifadə pedaqoji prosesin keyfiyyətcə yeni təhlilinə və dərk edilməsinə, təhsilin yeni prinsiplərinin müəyyən edilməsinə yeni istiqamətlər açır. Buna görə də "Skamper" texnikasından istifadə etməklə tədris prosesinin təşkilinin pedaqoji əsasları təkmilləşdirilir, yeni ideyalar, yeni məhsullar ortaya çıxır. Bu kimi təxəyyülyönümlü texnikalardan istifadə təhsilin məzmununu, metodlarını və formalarını dəyişdirməyə, təkmilləşdirməyə imkan verir.

## TƏDQIQAT METODU

"Skamper" düşüncəni stimullaşdırmaq, yeni ideyalar yaratmaq üçün istifadə olunan yaradıcı üsuldur. Bu texnika problemlərin həlli və yaradıcılıq sahəsində tanınmış ekspert A.Osborne tərəfindən işlənib hazırlanmışdır və biznes, təhsil və yaradıcılıq daxil olmaqla, geniş sahələrdə istifadə oluna bilər. "Skamper" təhsilalanlara adət etmədiyi şəkildə düşünərək suallar verməyə imkan verir. Düşünmək və düşündürmək müəyyən mənada müxtəlif təfəkkür bacarıqlarının əldə edilməsində hərəkətverici qüvvədir. Öyrənənlərin təfəkkür bacarıqlarını inkişaf etdirir və onları kəşflər etməyə həvəsləndirir. "Skamper"-in ətraflı izahı aşağıdakı cədvəldə təqdim olunmuşdur (Stumpf, 1999):

***Cədvəl 1***. *"Skamper" texnikası. 1970-1971-ci illər* (Stumpf, 1999)

| **"SKAMPER" texnikası** | | |
|---|---|---|
| № | **SKAMPER (SCAMPER) sözünün hərfi açılışı** | **Nümunə** |
| 1. | **S (Substitute)** - *Əvəzləmək* | materialları, komponentləri əvəzləmək |
| 2. | **C (Combine)** - *Kombinə etmək, birləşdirmək* | digər funksiyaları, elementləri birləşdirmək |
| 3. | **A (Adapt)** - *Əlavə etmək, uyğunlaşdırmaq* | uyğunlaşdirmaq, yeni element və funksiyalara və s. |
| 4. | **M (Modify)** - *Modifikasiya etmək* | ölçüsünü, rəngini, formasını dəyişdirmək, böyütmək, kiçiltmək və s. |
| 5. | **P (Put to another use)** - *Başqa sahədə istifadə etmək* | müxtəlif məqsədlər üçün fərqli şəraitdə istifadə etmək |
| 6. | **E (Eliminate)** - *İxtisar etmək* | bəzi hissələri ixtisar etmək |
| 7. | **R (Reverse)** - *Yerlərini dəyişmək* | tərsinə çevirmək, yenidən düzəltmək, alternativlər təklif etmək |

***Əvəz etmək, əvəzedici (substitute)***

Konsepsiyanın, məhsulun, xidmətin və ya prosesin səmərəliliyini artırmaq üçün hər hansı mövcud komponentin digəri ilə əvəz edilməsidir. Bunu sınaq müddətindən istifadə edərək yoxlaya bilərsiniz. Belə ki, bu mərhələdə öyrənənlərə daha çox düşünmək və ideya formalaşdırmaq üçün onlara müxtəlif suallar verilə bilər. "Skamper" texnikası mövcud ideya, məhsul və ya prosesin elementlərini *əvəz etmək* imkanlarının kəşfinə yönəlib. Bu addımın əsas ideyası məhsulu təkmilləşdirmək və ya istədiyiniz nəticələrə nail olmaq üçün hansı komponentlərin yeni və ya fərqli biri ilə əvəz oluna biləcəyini nəzərdən keçirməkdir. Bu mərhələdə özünüzə verəcəyiniz bəzi suallar:

- *Fikrinizin və ya məhsulunuzun hər bir elementini, komponentini və ya materialını nəzərdən keçirin. Onlardan birini daha yaxşı işləyəcək və ya daha çox dəyər verəcək başqa bir şeylə əvəz edə bilərsinizmi?*
- *İdeyanızın hər hansı xüsusiyyətlərini və ya xüsusiyyətlərini daha effektiv və ya innovativ olanlarla əvəz edə bilərsinizmi?*
- *Hansı alternativlərdən istifadə etmək olar?*
- *Mövcud məhsulları əvəz edə biləcək mövcud alternativlər və ya əvəzedicilər haqqında düşünün. Tətbiq oluna biləcək yeni materiallar, texnologiyalar və ya yanaşmalar varmı?*
- *Bənzər elementlər və ya komponentlərdən istifadə edən digər sənaye və ya sektorları nəzərdən keçirin. Bəlkə onları ideyanıza və ya məhsulunuza tətbiq edə bilərsiniz?*
- *Əvəzetmə hansı imkanları qazandıracaq?*
- *Əvəz etməyin potensial faydalarını nəzərdən keçirin. Ola bilsin ki, yeni məhsul daha davamlı, qənaətcil, funksional və ya ekoloji cəhətdən təmiz olacaq.*
- *Komponenti əvəz etməklə səmərəliliyi və ya istifadəni yaxşılaşdırmaq imkanını nəzərdən keçirin.*
- *Hansı məhdudiyyətlər və ya problemlər yarana bilər?*

***Birləşdirmək (Combine)***

Bu mərhələydə yeni və fərqli bir məhsul əldə etmək ümidi ilə məhsulun iki və ya daha çox hissəsini necə *birləşdirmək* mümkünlüyü düşünülməlidir. Yaradıcı düşüncə yeni və innovativ bir məhsul yaratmaq üçün ideyaları, məhsulları və ya xidmətləri birləşdirməyi nəzərdə tutur. Biz daha effektiv nəticə əldə etmək üçün bir neçə ideya, proses və ya məhsulu birləşdirə bilərik. Elementləri birləşdirərkən yarana biləcək məhdudiyyətlər gözdən keçirilməlidir. Dəyişikliyin yeni problemlərə səbəb olmayacağına, yeni ideya və ya məhsulun digər aspektlərinə mənfi təsir göstərməyəcəyinə əmin olunmalıdır. "Skamper" metodologiyasının birləşdirmək mərhələsinin tətbiqi yeni ideyalar yaratmağa, mövcud məhsul və ya prosesləri təkmilləşdirmək üçün yeni imkanlar kəşf etməyə kömək edir. "Skamper" texnikasının kombinasiya mərhələsi yeni və unikal bir ideya yaratmaq üçün müxtəlif elementləri və ya konsepsiyaları birləşdirərək yaradıcı düşüncəni stimullaşdırmaq üçün nəzərdə tutulmuşdur. Bu addımın məqsədi orijinal ideyanı təkmilləşdirmək və ya genişləndirmək üçün müxtəlif komponentləri birləşdirməyin yollarını tapmaqdır.

Bu mərhələdə özünüzə verəcəyiniz bəzi suallar:

- *Hansı element və ya ideyalar birləşdirilə bilər?*
- *Orijinal konsepsiyanız və ya məhsulunuzla əlaqəli bütün komponentləri, aspektləri və ya ideyaları nəzərdən keçirin. Yeni kombinasiyalar yaratmaq üçün hansılar birləşdirilə bilər?*

- *Daha tam və vahid məhsul və ya ideya yaratmaq üçün müxtəlif xüsusiyyətləri və ya konsepsiyaları birləşdirə bilərsinizmi?*
- *Birləşmə hansı imkanları qazandıracaq?*
- *Birləşmənin potensial faydalarını nəzərdən keçirin. Bəlkə də elementləri birləşdirmək funksionallığı və ya istifadənin əlçatan edəcəkdir.*
- *Prosesdə elementlərin və ya ideyaların birləşdirilməsi nümunələrinə diqqət yetirin. Bəlkə bu kombinasiyaları məqsədlərinizə uyğunlaşdıra bilərsiniz.*
- *Hansı məhdudiyyətlər və ya problemlər yarana bilər?*

***Uyğunlaşdırmaq (Adapt)***

Bu mərhələdə yeni və fərqli bir məhsul əldə etmək yeni element və funksiyalar əlavə olunur. Proses və ya məhsul ona uyğunlaşdırılır. "Skamper" metodologiyasındakı *uyğunlaşdırma* addımı mövcud ideyanın, məhsulun və ya prosesin yeni şərtlərə və ya vəziyyətlərə uyğunlaşdırılması və ya dəyişdirilməsi imkanlarının nəzərdən keçirilməsini təklif edir. Bu addımın məqsədi daha yaxşı nəticələr əldə etmək və ya yeni tələblərə uyğunlaşmaq üçün orijinal həlli dəyişdirmək və uyğunlaşdırmaq yollarını tapmaqdır. "Skamper" metodologiyasında uyğunlaşma addımının istifadəsi orijinal ideyaları və ya məhsulları yeni tələb və şərtlərlə təkmilləşdirmək və uyğunlaşdırmaq üçün yeni yollar tapmağa kömək edir.

Bu addım zamanı özünüzə verəcəyiniz bəzi suallar:

- *Hansı aspektləri uyğunlaşdırmaq olar?*
- *İdeyanızın, məhsulunuzun və ya prosesin uyğunlaşdırıla bilən müxtəlif aspektlərini nəzərdən keçirin. Bu funksionallıq, dizayn, materiallar, texnologiya və ya digər aspektlər ola bilər.*
- *Uyğunlaşmaq üçün hansı dəyişikliklər edilməlidir?*
- *Fikrinizi və ya məhsulunuzu uyğunlaşdırmaq üçün edilməli olan xüsusi dəyişiklikləri müəyyən edin. Bu, ölçü, forma, funksionallıq, interfeys və ya digər aspektlərdə dəyişiklik ola bilər.*
- *Uyğunlaşmanın qazandıra biləcəyi əsas imkanları nəzərdən keçirin. Ola bilsin ki, fərdiləşdirilmiş həll daha rəqabətli, səmərəli olacaqdır.*
- *Hədəf auditoriyanızı genişləndirə və ya həllinizi müxtəlif ehtiyac və ya tələblərə uyğunlaşdıraraq yeni problemləri həll edə bilərsinizmi?*
- *Hansı çətinliklər və ya məhdudiyyətlər yarana bilər?*

***Dəyişdirmək, böyütmək, kiçiltmək, (Modify,Magnify, Minify)***

Bu mərhələdə məhsulun bir hissəsini və yaxud bütov hissəsini dəyişdirib, məsələn, böyüdüb və yaxud kiçildərək yeni bir dəyər əlavə edib etməyəcəklərini müəyyənləşdirə bilərlər. Bu öyrənənlərə məhsulun zəruri hissəsini müəyyənləşdirməyə yardım edəcəkdir. "Skamper" metodologiyasındakı *dəyişdirmə* addımı mövcud ideya, məhsul və ya prosesə dəyişiklik etmək imkanlarını araşdırmaq məqsədi daşıyır. Bu addımın məqsədi orijinal həlli yaxşılaşdırmaq və ya dəyişdirmək üçün elementləri dəyişdirmək yollarını tapmağa xidmət edir.

Bu addım zamanı özünüzə verəcəyiniz bəzi suallar:

- *Hansı aspektləri dəyişdirmək olar?*
- *Fikrinizin, məhsulunuzun və ya prosesinizin dəyişdirilə bilən müxtəlif aspektlərini nəzərdən keçirin. Bu dizayn, funksionallıq, ölçülər, materiallar, rənglər və ya digər aspektlər ola bilər.*
- *Performans, səmərəlilik və ya istifadəçi təcrübəsini artırmaq üçün müəyyən aspektləri dəyişə bilərsinizmi?*
- *Dəyişiklik üçün hansı dəyişikliklər edilməlidir?*
- *Həllinizi daha çevik, adaptiv və ya innovativ etmək üçün dəyişikliklər edə bilərsinizmi?*
- *Dəyişiklik nə kimi imkanlar qazandıracaq?*
- *Modifikasiya yolu ilə həllinizin funksionallığını, estetikasını və ya digər aspektlərini təkmilləşdirə bilərsinizmi?*
- *Hansı çətinliklər və ya məhdudiyyətlər yarana bilər?*

***Müxtəlif məqsədlər üçün istifadə etmək (Put to another use)***

Bu mərhələdə biz görəcəyimiz işi tam əksini edərək prosesin istiqamətini dəyişə və ya ondan başqa məqsədlər üçün yenidən istifadə bilirik. "Skamper" metodologiyasındakı müxtəlif məqsədlər üçün istifadə etmək addımı mövcud ideyanın, məhsulun və ya prosesin tamamilə fərqli sahədə və ya kontekstdə istifadə imkanlarının nəzərdən keçirilməsini təklif edir. Bu addımın məqsədi təhsilin digər sahələrində problemləri həll etmək və ya ehtiyacları ödəmək üçün orijinal həlli tətbiq etməkdir.

Bu addım zamanı özünüzə verəcəyiniz bəzi suallar:

- *Sizin həlliniz başqa hansı sahələrə tətbiq oluna bilər?*
- *Həlliniz hansı yeni problemləri və ya ehtiyacları həll edə bilər?*
- *Həllini başqa sahəyə uyğunlaşdırmaq üçün hansı dəyişikliklər və ya modifikasiyalar edilməlidir?*
- *Həllinizi başqa sahədə tətbiq etmək üçün xüsusi dəyişiklikləri müəyyənləşdirin. Bu, funksionallıq, dizayn və ya digər aspektlərdə dəyişiklik ola bilər.*
- *Başqa bir sahədə tətbiq hansı faydalar gətirəcək?*
- *Başqa sahədə tətbiq olunarsa hansı çətinliklər və ya məhdudiyyətlər yarana bilər?*

***Aradan qaldırmaq, ləğv etmək (Eliminate)***

Bu mərhələnin xarakterik xüsusiyyəti xidməti, məhsulu sadələşdirmək və prosesi təkmilləşdirmək üçün *aradan qaldırıla* bilən səmərəsiz, lazımsız hissələri müəyyən etməkdir. Bu addımın məqsədi daha səmərəli və təkmilləşdirilmiş həllə nail olmaq üçün lazımsız elementləri sadələşdirmək və azaltmaq yollarını tapmaqdır.

Bu addım zamanı özünüzə verəcəyiniz bəzi suallar:

- *Hansı komponentlər aradan qaldırıla bilər?*
- *Hansı xüsusiyyətlər və ya funksionallıq aradan qaldırıla bilər?*
- *Həllinizin bütövlüyünə və ya dəyərinə xələl gətirmədən aradan qaldırıla bilən xüsusiyyətləri və ya imkanları haqqında düşünün. Ola bilsin ki, nadir hallarda istifadə olunan və ya istifadəçilərə lazım olmayan funksiyalar vardır. Onları aradan qaldırmağın nə kimi faydaları vardır?*
- *Ləğvetmə zamanı hansı çətinliklər və ya məhdudiyyətlər yarana bilər?*
- *Eliminasiyadan (ləğv etmək ) sonra hansı alternativ üsullar təklif oluna bilər?*

***Tərsinə çevirmək, yenidən düzəltmək (Reverse)***

"Skamper" metodologiyasındakı *tərsinə çevirmək* addımı orijinal konsepsiyada elementlərin, proseslərin və ya ideyaların sırasını tərsinə çevirmək və ya yenidən dəyişdirmək imkanlarının nəzərdən keçirilməsini təklif edir. Bu addımın məqsədi yeni perspektivlər tapmaq, adi qaydanı dəyişdirmək və ya ilkin qərarı yenidən düşünməkdir.

Bu addım zamanı özünüzə verəcəyiniz bəzi suallar:

- *Hərəkətlərin sırasını və ya elementlərin ardıcıllığını necə dəyişə bilərsiniz?*
- *Hansı elementləri dəyişdirmək və ya genişləndirmək olar?*
- *Həllinizin elementlərini, komponentlərini və ya aspektlərini dəyişdirmək imkanını nəzərdən keçirin. Yəqin ki, elementləri yenidən təşkil etməklə və ya genişləndirməklə siz yeni əlaqələr və ya faydalar kəşf edə bilərsiniz. Yerləşdirilmiş həllin nə kimi faydaları vardır?*
- *Yerləşdirmə zamanı hansı çətinliklər və ya məhdudiyyətlər yarana bilər?*
- *Hansı yeni ideyalar və ya perspektivlər yarana bilər?*

"Skamper" texnikası yeni ideyalar yaratmaq, mövcud həll yollarını təkmilləşdirmək və ya problemlərin həllini tələb edən müxtəlif vəziyyətlərdə faydalı ola bilər. Bu texnikadan bir çıx məqsədlər üçün istifadə etmək mümkündür (Clements, 2004):

**İnnovasiya Layihələri:** Yeni məhsul, xidmət və ya konsepsiya üzərində işlədiyiniz zaman "Skamper" metodologiyası sizə yeni ideyalar tapmağa, funksionallığı təkmilləşdirməyə və unikal bir məhsul yaratmağa kömək edə bilər.

**Mövcud Məhsulların Təkmilləşdirilməsi:** Əgər artıq məhsulunuz varsa, lakin onu təkmilləşdirmək istəyirsinizsə, "Skamper" texnikası onu öyənənlər üçün daha cəlbedici etmək üçün modifikasiya, dəyişikdirmə və ya birləşdirmə sahələrini müəyyən etməyə kömək edə bilər.

**Problemin həlli:** Problem və ya məhdudiyyətlə qarşılaşdığınız zaman "Skamper" texnikası problemi həll etmək üçün yeni yanaşmalar, ideyalar və ya yollar kəşf etməyə kömək edə bilər. Texnikanın müxtəlif addımlarını tətbiq etməklə siz problemə müxtəlif prizmadan baxa və gözlənilməz həllər tapa bilərsiniz.

**Yaradıcı proses:** "Skamper" texnikası yaradıcı düşüncəni stimullaşdırmaq və yeni ideyalar yaratmaq üçün bir vasitə kimi istifadə edilə bilər. Bu, qəlibi sındırmağa və "qutudan kənarda" düşünməyə təşviq edir.

**Təlim və inkişaf:** "Skamper" təhsil və təlim məqsədləri üçün istifadə edilə bilər. Bu, öyrənənlərdə ideyalar yaratmaq, həlləri təhlil etmək və yenidən düşünmək bacarıqlarını inkişaf etdirməyə kömək edir.

**NƏTİCƏ**

"Skamper" texnikasın tədqiqatyönümlü dərslərdə yaradıcı təfəkkürün inkişafı üçün nəzərdə tutulmuşdur. *"Çarxı yenidən icad etmək məcburiyyətində deyilsən, ancaq daha səmərəli işlədə bilərsən"* – "Skamper" metodu bu anlayış üzərində qurulmuşdur. "Skamper" texnikası innovativ düşüncənin, yeni həllərin tapılmasının və mövcud konsepsiyaların təkmilləşdirilməsinin tələb olunduğu vəziyyətlərdə faydalıdır. "Skamper" prosesi yaradıcı təfəkkürə və yeni ideyaların yaranmasına təkan verən bir neçə addımdan ibarətdir. O, fərdi və ya komandada, yaradıcılıq və ya real həyatda düşüncə vasitəsi kimi istifadə edilə bilər. Təlim prosesində "Skamper" texnikasından istifadə təhsilin keyfiyyətinin yüksəlməsinə, öyrədən və öyrənən arasında daha səmərəli qarşılıqlı əlaqənin yaranmasına, yeni kreativ ideyaların kəşfinə yol açacaqdır.

**ƏDƏBİYYAT SİYAHISI**

1. Clements, D.H., Wilson, D.C. & Sarama, J. (2004). Young Children's Composition of Geometric Figures: A Learning Trajectory. Mathematical Thinking and Learning: 6(2), 163-184.
2. Stumpf, H., & Eliot, J. (1999). A structural analysis of visual spatial ability in academically talented students. Learning and Individual Differences, 11/2, 137-152.
3. https://www.researchgate.net/publication/297743527_The_effectiveness_of_SCAMPER_technique_on_creative_thinking_skills
4. https://www.researchgate.net/publication/318018918_The_SCAMPER_Technique
5. https://www.interaction-design.org/literature/article/learn-how-to-use-the-best-ideation-methods-scamper

# İNFORMASİYA CƏMİYYƏTİNƏ GEDƏN YOLDA İKT-NİN TƏTBİQİ MƏRHƏLƏLƏRİ

**SADIXOVA MİNAYƏ İNTIQAM QIZI**
Bakı Slavyan Universitetinin müəllimi
Azərbaycan Təhsil İnstitutunun doktorantı
Riyaziyyat və İnformatika kafedrası/pedaqogika
*sadixova.minaya@mail.ru*
BAKI, AZƏRBAYCAN

**XÜLASƏ**

İnformasiya-kommunikasiya texnologiyalarının inkişafı biliklərə əsaslanan iqtisadiyyatın formalaşması şəraitində ölkənin intellektual və elmi potensialının mühüm göstəricilərindən biri hesab olunur. Tam əminliklə deyə bilərik ki, müasir qloballaşan dünyada ölkələrin rəqabət qabiliyyəti, ilk növbədə, onların İKT-dən səmərəli istifadəsi ilə müəyyən edilir. Texnoloji inkişaflar sosial həyatın bütün sahələrində dəyişikliklərə səbəb olur. Bu dəyişikliklər təhsil müəssisələrinin struktur və funksiyalarına öz təsirini göstərir. Müasir texnologiyalardan istifadə etməklə qurulan "müasir təhsil modeli" təhsil müəssisələri üçün pedaqoji heyət qarşısında yeni tələb və vəzifələr qoyur. Müəllimlərin təkcə fundamental biliklər istiqamətində deyil, eyni zamanda informasiya sahəsində ixtisaslaşması olduqca aktuallaşır. Hal-hazırda yeni nəsil müəllimlərinin qarşısında öyrənənlərin fərdi xüsusiyyətlərini nəzərə alan, onların ahəngdar inkişafını mümkün edən texnologiyaları seçib tədrisdə tətbiq etmək tələbi dayanır. "Öyrədən - öyrənən - dərslik" təhsil modelinə İKT-nin əlavə edilməsi öyrənmə prosesini individual proqram üzrə təşkil etməyə imkan verir. Məhz bu səbəbdən müasir cəmiyyətdə təhsil sisteminin qarşısında duran təhsil problemlərinin həlli istiqamətində informasiya-kommunikasiya texnologiyalarından istifadənin perspektivlərindən geniş bəhs olunur.

**AÇAR SÖZLƏR:** informasiya cəmiyyəti, müasir təhsil modeli, İKT-nın tətbiqi mərhələləri, texnologiya

**SUMMARY**

The development of information and communication technologies is considered one of the important indicators of the country's intellectual and scientific potential in the context of the formation of a knowledge-based economy. We can say with full confidence that the competitiveness of countries in the modern globalized world is determined, first of all, by their effective use of ICT. Technological developments cause changes in all areas of social life. These changes affect the structure and functions of educational institutions. The "modern education model" built using modern technologies sets new requirements and tasks for the educational staff in educational institutions. The specialization of teachers not only in the direction of fundamental knowledge, but also in the field of information becomes very important. Currently, the teachers of the new generation are faced with the demand to choose and apply in teaching technologies that take into account the individual characteristics of learners and make their harmonious development possible. The addition of ICT to the educational model "Teacher - learner - textbook" allows to organize the learning process according to an individual program. It is for this reason that the prospects of using information and communication technologies in the direction of solving educational problems facing the education system in modern society are widely discussed.

**KEYWORDS:** information society, modern educational model, stages of ICT application, technology

## GİRİŞ

Bir çox aparıcı ölkələrdə, o cümlədən Azərbaycanda təhsil sisteminin informasiyalaşdırılması davamlı olaraq həyata keçirilir. Beləliklə, İKT-nin təhsilin idarə edilməsinə səmərəli inteqrasiyası davam etdirilir və vahid təhsil informasiya sisteminin yaradılması yolu ilə idarəetmə mexanizmləri tətbiq edilir. Həmçinin elektron sənəd dövriyyəsi sistemlərinin tətbiqinin genişləndirilməsi ilə təhsil sisteminin idarə edilməsində şəffaflığın artırılması mümkün olur.

Təhsil sisteminin informasiyalaşdırılması təlim prosesinə İKT-nin tətbiqi üzrə kompleks tədbirlər vasitəsilə təzahür edir. Bugün müəllimlər informasiya-kommunikasiya texnologiyalarından istifadə bacarıqlarının daşıyıcıları hesab olunur. Tədris prosesində informasiya-kommunikasiya texnologiyalarından istifadə pedaqoji prosesin keyfiyyətcə yeni təhlilinə və dərk edilməsinə, təhsilin yeni prinsiplərinin müəyyən edilməsinə yeni istiqamətlər açmışdır. Müasir, sürətlə inkişaf edən cəmiyyətdə İKT-nin rolu və əhəmiyyəti artır, vahid informasiya məkanı yaradılır. Buna görə də peşə problemlərinin həllində kompüter texnologiyasından istifadə etməklə tədris prosesinin təşkilinin pedaqoji əsasları təkmilləşdirilir. Bundan əlavə, informasiya texnologiyalarından istifadə təhsilin məzmununu, metodlarını və formalarını dəyişdirməyə və təkmilləşdirməyə imkan verir. Sinif fəaliyyətinin dizaynı metodiki və didaktik materialın hazırlanması üçün informasiya-kommunikasiya texnologiyalarından səmərəli istifadəni nəzərdə tutur. Həyata keçirilən fəaliyyətlərin qiymətləndirilməsi üçün təhsil göstəricilərinin dinamikasına nəzarət edilir. Bu o deməkdir ki, hazırlanmış qarşılıqlı əlaqə alqoritmi öyrənənlərin inkişafında keyfiyyət dəyişikliklərinə xidmət edir. İnformasiya və kommunikasiya texnologiyalarından istifadə öyrənənlərdə:




- *fənlərin öyrənilməsində marağın və idrak fəaliyyətinin artmasına;*
- *yaddaşın bütün növlərinin (vizual, eşitmə, motor, assosiativ)inkişafına;*
- *konsentrasiyaya;*
- *təqdim olunan materialın daha tez və dərindən qavranılmasına səbəb olur.*

İnformasiya və kommunikasiya texnologiyaları müasir kompüterlərin və telekommunikasiya vasitələrinin unikal imkanları ilə bağlı təhsil üçün tamamilə yeni, hələ də kifayət qədər tədqiq edilməmiş texnoloji imkanlar açır. UNESCO hesab edir ki, İKT təhsildə əlçatanlığın və bərabərliyin təmin edilməsinə, öyrənmə və tədrisin keyfiyyətinin yüksəldilməsinə və müəllimlərin peşəkar inkişafına, eyni zamanda idarəetmənin təkmilləşdirilməsinə töhfə verə bilər. İnformasiya cəmiyyətinin (İC) yaradılması və inkişafı təhsildə informasiya-kommunikasiya texnologiyalarının (İKT) geniş tətbiqini nəzərdə tutur ki, bu da bir sıra amillərlə müəyyən edilir (Majumdur, 2004):

- İKT-nin təlim prosesinə tətbiqi bəşəriyyətin bilik və toplanmış texnoloji və sosial təcrübəsinin nəsildən-nəslə, bir şəxsdən digərinə ötürülməsini əhəmiyyətli dərəcədə sürətləndirir.
- Təlim və təhsilin keyfiyyətini yüksəldən müasir İKT vasitələri insana ətraf mühitə və sosial dəyişikliklərə daha tez uyğunlaşmağa imkan verir. Bu, hər bir insana həm bu gün, həm də gələcək postindustrial cəmiyyətdə lazımi biliklər əldə etmək imkanı qazandırır.

İKT-nin təhsildə fəal və səmərəli tətbiqi təhsil müəssisələrinin tələblərinə cavab verən təhsil sisteminin yaradılmasında və müasir sənaye cəmiyyətinin tələbləri fonunda ənənəvi təhsil sisteminin islahatı prosesində mühüm amildir.

**TƏDQIQAT METODU**

Honq Konq Universitetinin dosenti Kreyq Blurton *"Təhsildə yeni istiqamətlər"* adlı kitabında (hesabat) II və VII fəsillərində təhsildə İKT-nin tətbiqinin aktuallığından ətraflı bəhs etmişdir. Bundan əlavə, həmin kitabda (hesabat) kütləvi informasiya vasitələri, telekommunikasiyanın qlobal konvergensiyası prosesləri, onların informasiya cəmiyyətinin inkişafına təsiri, eləcə də təhsildə İKT-dən istifadənin planetar problemləri ümumiləşdirilmiş və təhlil edilmişdir. Kompüter texnologiyalarının bütün fəaliyyət sahələrində qlobal şəkildə tətbiqi, yüksək avtomatlaşdırılmış informasiya mühitinin formalaşması təkcə ənənəvi təhsil sisteminin transformasiyasının başlanğıcı deyil, eyni zamanda informasiya cəmiyyətinin formalaşması istiqamətində ilk addım olmuşdur. Müasir təhsil sistemində yeni islahatların həyata keçirilməsinin məqsədəuyğunluğunu müəyyən edən əsas amil XXI əsrdə bəşəriyyətin üzləşdiyi əsas çağırışlara cavab vermək zərurətidir (Courts, 2012):

- *cəmiyyətin yüksək səmərəli informasiya və telekommunikasiya texnologiyalarına əsaslanan yeni inkişaf strategiyasına keçidinin zəruriliyi;*
- *sivilizasiyanın təhsillə formalaşan şəxsiyyətin qabiliyyət və keyfiyyətlərindən əsaslı asılılığı;*
- *həqiqi təhsil və İKT-dən səmərəli istifadə əsasında cəmiyyətin uğurlu inkişafının mümkünlüyü;*
- *millətin rifah səviyyəsi, dövlətin milli təhlükəsizliyi və təhsilin vəziyyəti və İKT-dən istifadə arasında sıx əlaqə və s.*

Son illər ölkəmizdə təhsil sistemində İKT infrastrukturunun inkişafı və təhsildə İKT-dən istifadənin dünya standartları səviyyəsinə çatdırılması prioritet istiqamətlərdən birinə çevrilib. Bu dövrdə ölkənin təhsil sektorunda təhsil müəssisələrində İKT infrastrukturunun yaradılmasına yönəlmiş islahatların ən mühüm mərhələlərindən biri İKT-nin təhsildə tətbiqi sahəsində müxtəlif layihələr və tədbirlər həyata keçirilməsidir. Ölkəmiz üçün fundamental əhəmiyyət kəsb edən perspektivli təhsil sisteminin formalaşmasının əsas istiqamətləri aşağıdakılardır (Majumdur, 2004):

- *təhsilin fundamentallaşdırılması yolu ilə keyfiyyətinin yüksəldilməsi, öyrənənlərin müasir elmi nailiyyətlər barədə daha geniş miqyasda və qısa müddətdə məlumatlandırılması;*
- *təlimin yeni informasiya texnologiyalarına və ilk növbədə İKT-yə yönəlməsinin təmini;*
- *əhalinin bütün qrupları üçün təhsilin əlçatanlığının təmin edilməsi və s.*

Təhsildə kompüterlərdən istifadə təhsilin keyfiyyətinin yüksəlməsinə, öyrədən və öyrənən arasında daha səmərəli qarşılıqlı əlaqənin yaranmasına, yeni nəsil informasiya texnologiyalarının yaradılmasına gətirib çıxarmışdır.Bir çox tədqiqatçıların fikrincə, kompüter vasitələrinə əsaslanan yeni informasiya təhsil texnologiyaları dərslərin effektivliyini 20-30% artıra bilər. Kompüterlərin təhsil sektoruna tətbiqi ənənəvi təlim metodları və texnologiyalarının, belə ki, bütün təhsil sektorunun inqilabi transformasiyasının başlanğıcı hesab olunur. Bu mərhələdə informasiya kommunikasiya texnologiyaları mühüm rol oynamışdır.

**NƏTİCƏ**

Qlobal texnoloji inkişafın yeni mərhələsi müasir telekommunikasiya şəbəkələrinin yaranması və onların informasiya texnologiyaları ilə yaxınlaşması, yəni İKT-nin yaranması olmuşdur. Kompüter sistemlərinin və qlobal telekommunikasiya şəbəkələrinin birləşməsi bütün bəşəriyyəti birləşdirən planetar infrastrukturun yaradılmasına və inkişafına imkan verdi. İKT-nin müvəfəqiyyətli tətbiqinə

nümunə olaraq məlumatın toplanması və saxlanması, internet vasitəsilə fərdi olaraq hər bir istifadəçiyə ötürülməsi üçün qeyri-məhdud imkanlara malik qlobal kompüter şəbəkəsinin yaradılmasını göstərmək olar. Hazırda ölkəmizdə elmi müəssisələrdə cəmiyyətin sosial-iqtisadi inkişafının tələblərinə uyğun İKT bacarıqlarına malik mütəxəssislərin hazırlanması və onların təhsil mərkəzlərinə çevrilməsi üçün standartlar hazırlanıb tətbiq edilir. Elmi müəssisələrdə aparılan tədqiqatlar müasir standartlar səviyyəsinə çatdırılır, elmi tədqiqatların nəticələrinin tədris prosesində və istehsalatda tətbiqi təşkil edilir, elmin informasiya təminatının gücləndirilməsi sahəsində tədbirlərin görülməsinə imkanlar açılır..

**ƏDƏBİYYAT SİYAHISI**

1. Courts, B. & Tucker, J. (2012). Using Technology To Create A Dynamic Classroom Experience. Journal of College Teaching & Learning (TLC), 9(2), 121-128.

2. Guo, Z., Li, Y. & Stevens, K. (2012). Analyzing Students' Technology Use Motivations: An Interpretive Structural Modeling Approach. Communications of the Association for Information Systems, 30(14), 199-224

3. Majumdar, S. 2004. Integrating ICT in Teaching & Learning: A Functional Approach Presented at the UNESCO-APEID Writing Workshop for a Guideline and Competency Based Standards for Teachers' PedagogyTechnology Integration, Hua Hin, Thailand, 28-31.

4. Y. Baek, J. Jung, B. Kim. "What drives teachers to use technology in the classroom? Studying the Factors Affecting the Simplification of Technology on the Korean Example". Comput. Education, 2008, 50(1), 224-234.

5.https://www.researchgate.net/publication/274025027_Impact_of_ICT_on_Education

6. https://learningportal.iiep.unesco.org/en/issue-briefs/improve-learning/information-and-communication-technology-ict-in-education

7.https://www.researchgate.net/publication/251713326_ICT_and_systematic_steps_in_teaching_and_learning_language_in_the_classroom

8. https://www.edu-links.org/learning/10-principles-developing-ict-education-programs

9. https://digital-skills-jobs.europa.eu/en/inspiration/research/unesco-guidelines-ict-education-policies-2022

# MƏKTƏBƏQƏDƏR MÜƏSSISƏLƏRDƏ UŞAQLARA TOLERANT DÜNYAGÖRÜŞÜ TƏRBIYƏSININ AŞILANMASI

**Əsgərova Turanə Ədalət qızı**
Bakı Slavyan Universiteti
Magistratura- Məktəbəqədər təlim və tərbiyənin metodikası və metodologiyası
Email:turane.esgerova.00@gmail.com
Rəyçi: Ş.Ağakişiyeva
**Bakı**

**Xülasə**

Müasir dövrdə dünyanın ən çox qlobal məsələlərdən biri də tolerantlıq məsələsi olmuşdur. Tolerant dünyagörüşünün tərbiyəsi şəxsiyyətinin inkişafının ilk mərhələsi olan məktəbəqədər yaş dövründə aparılmalıdır.

Məktəbəqədər tərbiyə müəssisələri uşaq şəxsiyyətinin yüksək mənəvi və əxlaqi keyfiyyətlərinin əsası kimi tolerantlıq tərbiyəsinin inkişafı məqsədi daşıyır. Bunu nəzərə alaraq tolerantlıq tərbiyəsinin

formalaşdırılmasının əsas məqsədi məktəbəqədər yaşlı uşaqları ümumbəşəri və milli dəyərlərlə tanış etmək və intellektual inkişafı təmin etməkdir.

Müasir dövrdə məktəbəqədər yaşlı uşaq həm öz , həm də başqa insanlar qarşısında hüquq və vəzifələrini bilməklə yanaşı ona ciddi şəkildə əməl etməlidir. Digər xalqların nümayəndələrinin maraqlarına, adət-ənənələrinə və dini etiqadlarına hörmətlə yanaşmalıdır.

Tolerantlıq tərbiyəsinin formalaşdırılması məktəbəqədər müəssisələrdə aparılan məqsədyönlü işlər zamanı müəyyən nəticələr əldə edilmişdir.

**Summary**

In modern times, one of the most global issues in the world has been the issue of tolerance. Education of a tolerant worldview should be carried out during the preschool age, which is the first stage of personality development.

Preschool education institutions aim to develop tolerance education as the basis of high moral and moral qualities of children's personality. Taking this into account, the main goal of the formation of tolerance education is to familiarize preschool children with universal and national values and ensure intellectual development.

In modern times, a preschool-age child should know his rights and duties towards himself and other people and strictly follow them. The interests, traditions and religious beliefs of representatives of other nations should be respected.

Certain results were achieved during the purposeful work on the formation of tolerance education in pre-school institutions.

Açar sözlər: məktəbəqədər təhsil, uşaq, tolerantlıq, valideyn, tərbiyəçi.

Key words: presschool education, child, tolerance, parent, educator.

Ключевые слова*:* дошкольное образование, ребенок, толерантность, родитель, воспитатель.

**Giriş**

**Mövzunun aktuallığı.**Tolerant dünyagörüşünün formalaşdırılması olduqca mürəkkəb prosesdir. Uşaqların ailə və ailə üzvləri ilə münasibəti, digər insanlar və eləcə də həmyaşıdları ünsiyyəti tolerantlıq tərbiyəsinin əsasıdır.

Hazırda dünya üzrə yüzlərlə təriqət, din və məzhəb mövcuddur. Eyni zamanda ölkəmizdə və başqa digər ölkələrdə müxtəlif xalq və etnik qruplar yaşamışdır. Bizim ölkəmizdə tolerant ölkə olaraq digər xalqların dini etiqadlarını hörmətlə qarşılamışdır.Elmi ədəbiyyatlarda tolerantlıq daha çox milli, irqi və dini müxtəlifliyə hörmətlə yanaşmaq kimi qəbul olunmuşdur. Siyasi ədəbiyyatlarda daha çox tolerantlıq dini tolerantlıq yəni dözümlülük mənasını ifadə edən anlayış kimi götürülmüşdür.

Tolerant dünyagörüşünün tərbiyəsi vəzifəsi ilk növbədə uşağın şəxsiyyətinin ahəngdar inkişafına birbaşa təsir edən insanların fəaliyyətinə tətbiq edilməlidir. Bu tərbiyə ailədən başlanılmalıdır və məktəbəqədər tərbiyə müəssisələrində davam etdirilməlidir.

Məktəbəqədər tərbiyə müəssisələrində uşaqlara təkcə bilik, bacarıq və vərdişlərin aşılanması ilə kifayətlənmək düzgün deyildir. Eyni zamanda məktəbəqədər yaşlı uşaqlara gələcək həyat üçün zəruri olan və həyat mövqeyinin əsası dözümlülük, tolerantlıq və müstəqillik kimi keyfiyyətləri formalaşdırmaq məktəbəqədər tərbiyə müəssisələrinin qarşısına əsas məqsəd kimi qoyulmalıdır.

**Tədqiqat metodu.** Tədqiqat işi müşahidə , müqayisə, , eksperiment, anket sorğusu, analiz metodlarından istifadə edilərək işlənmişdir.

**Tədqiqat işi strukturu.** Mövzu giriş hissə, yarımfəsillər, nəticə və ədəbiyyat hissədən ibarətdir.

Müasir dövrdə gənc nəsildə tolerant dünyagörüşünün tərbiyəsinin inkişaf etdirilməsi zərurəti yaranmışdır. Uşaq şəxsiyyətinin ahəngdar inkişafı ailədə və məktəbəqədər müəssisələrdə həyata keçirilir.

Uşaqlarda tolerant dünyagörüşünün tərbiyəsi üçün məktəbəqədər tərbiyə müəssisələrində böyük imkanlar yaradılmışdır. Bununla da müasir cəmiyyətdə uşaqlar humanist dəyərləri əsasında tərbiyə olunur. Bu da öz növbəsində uşaqların gələcəkdə bir vətəndaş kimi formalaşmasında əvəzedilməz rol oynayır.

Məktəbəqədər müəssisələrdə müəllimlərlə valideynlərin mütəşəkkil işin təşkili tolerantlıq tərbiyəsinin məqsədyönlü inkişafını təmin edir.

Müasir dövrdə ailədə uşaqlarla düzgün olmayan münasibət, uşağa şəxsiyyət kimi yanaşılmaması, uşaqlara lazimi diqqət və qayğının göstərilməməsi eləcə də ailədə münasibətlərində olan konfliktlər tolerantlıq tərbiyəsinin inkişafını ləngidir. Bu da öz növbəsində məktəbəqədər tərbiyə müəssisələrində müəllimlərin işini çətinləşdirir. Uşaqlar hər kəsin qarşılıqlı əlaqəsi və ünsiyyətini düzgün qəbul etməlidir. Həmçinin cəmiyyətdə mövcud olan ayrı-ayrı xalqların dünyagörüşünü, adət-ənənələrini düzgün anlamalı və hörmətlə yanaşmalıdır. Uşaqları cəmiyyətdəki insanların hüquq və azadlıqlarını qorumağa alışdırmaq lazımdır.

Bu kimi məsələləri nəzərə alaraq məktəbəqədər tərbiyə müəssisələri uşaqların tolerantlıq tərbiyəsinin kiçik yaşdan başlamaq lazımdır.

İlk növbədə bu işə dünya xalqlarının folkloru ilə tanış etməyə başlamaq lazımdır. Hər bir xalqın mədəniyyət tarixinin mühüm tərkib hissəsi folklor nümunələridir. Bu folklor nümunələri əsasını nağıllar təşkil edir. Dünyada mövcud olan ayrı-ayrı xalqların dünyagörüşü, ideyaları, süjetləri, mövzuları nağıllarda aydın şəkildə göstərilir. Bu müxtəlifliklərə baxmayaraq hər bir xalqın özünəməxsus milli dəyərləri vardır. Bu nağılların mərkəzindəki qəhrəman igid, xeyirxah, mərhəmətli, cəsur obrazlar olur. Nağıllar uşaqların ilk ədalət haqqında anlayışlar və təsəvvürlərini formalaşdırır. Burada yaxşılığın sonda qalib gəlməsi tolerant tərbiyəsi ilə əlaqələndirilir.Nağılların sonlarında pislik qəhrəman tərəfindən cəzalandırılır.

Məktəbəqədər yaşlı uşaqlara nağıl oxumaq onlarda müxtəlif fəaliyyətin təşkili üçün zəmin yaradır. Bu zaman uşaq dövlətinin təbiətinin xüsusiyyətlərini eləcə də coğrafi mövqeyini, xalqların müxtəlif etnoqrafik mədəni xüsusiyyətləri ilə tanışlıq yaranır. Xalq nağıllarında uşaqların yaradıcılıq qabiliyyəti formalaşır.

Məktəbəqədər müəssisələr uşaqlara məhsuldar fəaliyyətlərində ənənəvi milli sənət növlərini öyrətmək məqsədi daşıyır. Bunlara tikmə, orqami yəni kağızların qatlanaraq fiqur halına gətirilməsi, batik texnikasından istifadə edərək rəsm, taxta məmulatlarının rənglənməsi buna bariz nümunədir.

Tolerantlıq tərbiyəsinin formalaşdırılması üçün məktəbəqədər müəssisələrdə oyun metodundan istifadə məqsədəuyğundur. Bunun əsas səbəbi məktəbəqədər yaşlı uşaqların şəxsiyyətinin inkişafında oyun müstəsna əhəmiyyətə malikdir. Bütün yaş dövrlərində oyun uşaqların həyatında mühüm rol oynayır və onu həyatı boyu müşayiət edir.

Məktəbəqədər müəssisələrdə kuklalarla oynamaq uşaqları müxtəlif xakqların adət-ənənələri və milli geyimləri ilə tanış edir. Buda öz növbəsində uşaqlara tolerant dünyagörüşünün formalaşmasında mühüm əhəmiyyət kəsb edir. Məsələn tikinti materialları ilə oyunlarda müxtəlif xalqların yaşayış evlərinin tikintisinin xüsusiyyətləri ilə tanış edir.

Tolerant dünyagörüşünün tərbiyəsi üçün sağlam mühitin yaradılması vacib məsələdir. Bu tərbiyənin səmərəsi həmin mühitdən əsaslı şəkildə asılıdır. Belə oyunlar vasitəsilə uşaqlarda kollektivdə bir-birlərinə qarşı səmimi, mehriban münasibət, empatiya , qarşılıqlı hörmət, yardım, rəğbət kimi hisslər formalaşdırır.

Uşaqların həmyaşıdları ilə ünsiyyətə hər zaman şərait yaradılmalıdır. Uşaqlar məktəbəqədər müəssisələrdə əldə etdikləri bilik, bacarıq və vərdişləri müxtəlif fəaliyyət növlərində bu ünsiyyət vasitəsi ilə tətbiq etməyi öyrənirlər.

Əslində " Dözümlülük prinsipləri haqqında Bəyannamə" nin qəbul edilməsini dünyada tolerantlıqla bağlı yeni mərhələnin başlanğıcı kimi də xarakterizə etmək mümkündür. Çünki bu sənədin qəbulundan, xüsusilə 16 noyabrın Beynəlxalq Tolerantlıq Günü elan edilməsindən sonra beynəlxalq aləmdə bu sahəyə münasibət xeyli dəyişib. [ 5, 29 ].

Məktəbəqədər müəssisələrdə tolerantlığın inkişaf etdirilməsi yollarından biri də xarici dilin öyrədilməsi məsələləridir. Dünyada millətlərarası ünsiyyət dili kimi xarici dillər öyrədilir. Xarici dil uşaqları əcnəbi həmyaşıdlarının həyatı, şeirləri, nağılları, mahnıları eləcə də müxtəlif folklor nümunələri ilə tanış edir. Eyni zamanda həmin xalqın uşaq ədəbiyyatı ilə yaxından tanış olur. Məktəbəqədər müəssisələrdə uşaqlar ailə, gündəlik ünsiyyət üçün vacib olan obrazlı oyunları müxtəlif oyun fəaliyyətində xarici dildən istifadə etməklə yeni sosial təcrübə qazanırlar.

Məktəbəqədər müəssisələrdə uşaqlara öyrədilən xarici dillər digər cəmiyyətin nümayəndələri ilə qarşılıqlı ünsiyyət yaradır. Hazırda dünyada dil və mədəniyyət müxtəlifliyinə baxmayaraq tolerant insanları bir-birinə yaxınlaşdırır və qarşılıqlı ünsiyyət qurmağa imkan verir. Bununla da uşaqları doğma dilimizi bilməklə yanaşı xarici dili bilmək digər xalqın mədəniyyəti ilə tanış olmaq deməkdir. Müasir dövrdə dünya çoxdilli olduğu üçün bir dili bilməklə kifayətlənmək olmaz.

Məktəbəqədər müəssisələr pedaqoji prosesin iştirakçıları müəllimlə uşaqların qarşılıqlı məsuliyyəti, ünsiyyəti, yardımı və empatiya və çətinlikləri birlikdə aradan qaldırmaq kimi bacarıqları inkişaf etdirir.

Bu zaman uşaq özünün digər həmyaşıdlarından fərqləndirən xarakterik xüsusiyyətlərini dərk edir. Həmçinin özünün hər bir insan kimi təkrarolunmaz və unikal olduğunu başa düşür. Kollektivdə həmyaşıdları ilə səmərəli ünsiyyət qurmaq bacarığına yiyələnir. Eyni zamanda uşaq başa düşür ki, o, müstəqil şəkildə inkişaf edə və təkmilləşə bilər. Məsələn bu gün istər evdə , istərsə də məktəbəqədər müəssisədə bacarmadığı işi sabah mütləq bacaracaq və çətin işlərin öhdəsindən müvəffəqiyyətlə gəlməyi bacaracaqdır. Məktəbəqədər yaşlı uşaq müxtəlif fəaliyyət növlərində müəllimi və valideynin dəstəyini həm uğur qazandıqdan, həm də uğursuzluqda hiss edir. Məktəbəqədər dövrdə uşaqlar öz duyğularını şüurlu şəkildə qəbul edirlər. Eyni zamanda uşaqlar kollektivdə digər həmyaşıdlarının emosional vəziyyətlərini başa düşürlər.

Həmçinin, güclü tələffüz bacarıqlarının formalaşması üçün müxtəlif intonasiya çalarlarından istifadə edərək oxunan şeirlərdən istifadə etmək faydalıdır. Təcrübə göstərir ki, tələffüz bacarığı dəyişməz qala bilməz, ona görə də təkcə formalaşmış bacarıqları saxlamaq deyil, həm də təhsilin orta və yuxarı pillələrində onları təkmilləşdirməyə davam etmək vacibdir.

**Nəticə**

Beləliklə, fonetik bacarıqların formalaşması nitq mesajının adekvat başa düşülməsi, fikirlərin ifadəsinin dəqiqliyi və dil tərəfindən hər hansı bir kommunikativ funksiyanın yerinə yetirilməsi üçün zəruri şərtdir. Tələffüz nitqin əsas xüsusiyyəti, bütün digər xarici dildə nitq bacarıqlarının inkişafı və təkmilləşdirilməsi üçün əsasdır və ingilis dilinin tədrisində fonetik bacarıqlar ən mühüm yerlərdən birini tutur və mühüm rol oynayır. Dünya birliyinin qloballaşma dövrünə qədəm qoyması nəticəsində dil mədəniyyətinin inkişafı və formalaşması ilə sıx bağlı olan proseslər yeni xüsusiyyətlər qazanaraq kifayət qədər sürətlə inkişaf edir. İndiki vaxtda öz ana dilini və əlavə olaraq ingilis dilini bilən bir insanla rastlaşmaq tamamilə normaldır. İngilis dili bütün bəşəriyyətin ünsiyyət sahəsinin bir növ peşəkar və gündəlik standartına çevrilmişdir. Avropa və Asiyada yaşayan bir çox insanlar üçün ingilis dili iş və ya gündəlik həyatın ikinci dilidir və ya başqa məqsədlər üçün istifadə olunur.

Tədqiqatımız zamanı biz aşağıdakı vəzifələri həll etdik:

- ingilis dilinin fonetik xüsusiyyətlərini izah etmək və işləmək üçün üstünlük verilən metodu müəyyən etmək;
- İngilis dilinin fonetik xüsusiyyətlərinin izahı və işlənməsi üçün metodologiya və plan yazmaq;
- ali təhsil məktəbinin tələbələri üçün müasir interaktiv metodlardan istifadə edərək fonetik bacarıqların möhkəmləndirilməsi texnologiyasının tətbiqinə dair nümunələr vermək;
- tələbələr üçün müasir interaktiv metodları nəzərdən keçirmək.

Deməli, ali məktəbdə məktəbdə ingilis dili dərslərində fonetikanın öyrədilməsi savadlı şifahi nitqin inkişafında ayrılmaz və mühüm amildir. İngilis dilinin fonetikası nitq fəaliyyətində nitq bacarıq və bacarıqlarının formalaşmasına və inkişafına kömək etməlidir.

**ƏDƏBIYYAT SIYAHISI**

1.Galskova N.D. Xarici dillərin tədrisinin müasir üsulları. Müəllim üçün bələdçi. 3-cü nəşr, yenidən

işlənmiş. və əlavə M.: ARKTİ, 2004 192s. 2. Merkulova E. M. Universitet tələbələri üçün ingilis dili. Fonetikaya giriş. - Sankt-Peterburq: Soyuz nəşriyyatı, 2000.

1. Rogova G. V., Vereshchagina I. N. Təhsil müəssisələrində ilkin mərhələdə ingilis dilinin tədrisi üsulları: Pedaqoqlar və tələbələr üçün bələdçi. universitetlər. - M. Maarifçilik, 1997

2. Filatov V.M. İbtidai və orta məktəblərdə xarici dilin tədrisi metodları: Pedaqoji kolleclərin tələbələri üçün dərslik.- Rostov-N-D.: Phoenix, 2004.-416 s.

3. Maslyko E.A. Xarici dil müəlliminin kitabçası - Minsk, Ali məktəb, 1999

4. Galskova N.D., Gez N.İ. Xarici dillərin tədrisi nəzəriyyəsi: Linqvodidaktika və metodologiya.- M .: "Akademiya" nəşriyyat mərkəzi, 2004.-336 s.

5. Şerba L.V. İbtidai məktəbdə dillərin tədrisi.-M.: Akademiya, 2002.-149 c.

# MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN RİYAZİ TƏSƏVVÜRLƏRİNİN FORMALAŞDIRILMASINDA DİDAKTİK OYUNLARIN ROLU

**MİRƏLİYEVA GÜLNAR**
Bakı Slavyan Universiteti
Magistratura / Pedaqogika elmləri
*E-mail:gulnarmirliyeva@gmail.com*
BAKI,AZƏRBAYCAN

**XÜLASƏ**

Məktəbəqədər yaş dövründə oyun uşağın həyatında böyük əhəmiyyət kəsb edir deyə düşünürəm. Uşaqların oyuna olan ehtiyacı, istəyi hər zman davam edir və ilk dəfə olaraq, bu dövrdən mühüm rol oynamağa başlayır. Oyunda, uşaqlar böyüklərə çoxdan məlum olanı kəşf edir.

Aktuallıq ondan ibarətdir ki, uşaqlar oyun vasitəsilə riyazi bilikləri daha yaxşı mənimsəyir. Məktəbəqədər yaş dövründə uşaqlarda riyaziyyatın tədrisi bir çox mütəxəssislərin biliklərin möhkəmləndirilməsi və təkrarlanması funksiyası ilə yanaşı, didaktik oyunlarda yeni biliklərin, ideyaların və idrak fəaliyyətinin üsullarının formalaşdırılması funksiyasının inkişaf etdirilməsinə də kömək edir.

Oyunun məqsədi uşaqlara mürəkkəb riyazi anlayışları öyrətmək, saymağı, oxumağı və yazmağı öyrənməkdir. Ancaq bu, təkcə məşq deyil, həm də öz uşağla gözəl bir vaxt keçirmək deməkdir. Bununla belə, bilik axtarışında həddi aşmamaq vacibdir. Ən əsası körpəyə biliyə maraq aşılamaqdır. Bunun üçün dərslər əyləncəli və oynaq şəkildə keçirilməlidir.

**AÇAR SÖZLƏR: oyun, təsəvvür, məktəbəqədər.**

**SUMMARY**

I think that in preschool age, play is of great importance in a child's life. Children's need and desire for play always continues and for the first time, it begins to play an important role from this period. In the game, children discover what has been known to adults for a long time.

The relevance is that children master mathematical knowledge better through play. Teaching mathematics in children during preschool age helps to develop the function of forming new knowledge, ideas and methods of cognitive activity in didactic games, in addition to the function of strengthening and repeating the knowledge of many specialists.

The goal of the game is to teach children complex mathematical concepts, learn to count, read and write. But this means not only training, but also having a great time with your child. However, it is important not to overdo it in the pursuit of knowledge. The most important thing is to instill interest in knowledge in the baby. For this, lessons should be conducted in a fun and playful way.

**KEY WORDS: game, imagination, preschool.**

## GİRİŞ

Riyazi anlayışların formalaşması məktəbəqədər yaşlı uşağın idrak qabiliyyətinin, yaradıcılıq qabiliyyətlərinin və intellektual inkişafının güclü bir vasitəsidir. Bu dövr ilkin riyazi bilikləri mənimsətmək üçün ən əlverişli dövrdür. Məktəbəqədər yaş dövründə uşağın dünyaya yeni bir baxışı olur və ətrafdakı obyektləri öz təxəyyülünə görə qiymətləndirməyə çalışır. Bundan əlavə məktəbəqədər yaşlı uşağın riyazi anlayışları yalnız birbaşa öyrənmə yolu ilə əldə etdiyini düşünmək səhv olardı. Əgər böyüklər uşağa riyazi anlayışları vaxtından əvvəl öyrətməyə çalışsalar, bu riyazi anlayışların başa düşülməsi deyil, yalnız əzbərlənməsi olacaq. Beləliklə, deyə bilərik ki, məktəbəqədər yaşlı uşaq vaxt, məkan, səbəb ardıcıllıqlarını bir-biri ilə əlaqələndirmək üçün kifayət qədər qabiliyyətə malik olmalıdır.

Məktəbəqədər təhsil müəssisələrində aparılan, psixoloji-pedaqoji tədqiqatlar göstərir ki, yalnız uşaq fəaliyyətinin düzgün təşkili və birbaşa təhsil fəaliyyəti məktəbəqədər yaşlı uşaqda elementar riyazi anlayışların inkişafını təmin edə bilər.

Bununla deyə bilərik ki, oyunun məqsədi uşağın şəxsiyyətinin inkişafının bütün aspektlərinə təsir göstərməkdir: hisslərinə, şüuruna, iradəsinə və ümumiyyətlə bütün davranışlarına. Məşhur psixoloq S.L.Rubinşteyn qeyd etmişdir ki, «Məhz ilk dəfə oyun prosesində uşaqda ətraf aləmə təsir etmək tələbi yaranır və formalaşır» ( Рубинштейн, 1989).

Bu mövzunun aktuallığı, uşaqda riyazi anlayışların formalaşması üçün ən təsirli vasitə olan müxtəlif didaktik oyunların istifadəsidir. Bu cür oyunlar uşağa bəzi mürəkkəb riyazi anlayışları başa düşməyi öyrədir, rəqəm və rəqəm, kəmiyyət və rəqəm arasındakı əlaqə haqqında fikir formalaşdırır, məkan istiqamətlərində naviqasiya etmək və nəticə çıxarmaq bacarıqlarını inkişaf etdirir. Didaktik oyun uşağı darıxdırıcı bir işdən daha çox maraqlandırır, oyun uşağın marağını cəlb edir və bununla da diqqətin, yaddaşın, düşüncənin və s. inkişafı üçün şərait yaranır.

Didaktik oyunların vəzifəsi ondan ibarətdir ki, oyun zamanı uşaqlar əsasən müstəqil olaraq yeni biliklər əldə edir və bu işdə bir-birlərinə fəal kömək edirlər. Oyunun məzmununun riyazi tərəfi həmişə aydın şəkildə ön plana çıxmalıdır. Yalnız bundan sonra oyun uşaqların riyazi inkişafında və onların marağının tərbiyəsində öz rolunu oynayacaqdır.

«Didaktik oyunlar uşaqlarda beyinin hərəkəliyinə, elastikliyinə, diqqətin inkişaf etməsinə, iradənin möhkəmlənməsinə, namusluluq və düzlük kimi keyfiyyətlərin aşılanmasına kömək edir» (Kərimov,2002).

Didaktik oyunlar uşaqlara qələbə sevinci, həmyaşıdları ilə birgə fəaliyyətlərdə iştirak etmək sevinci bəxş edir və onların zehni işlə məşğul olmaqdan duyduqları həzz riyazi fəaliyyətə marağı və onu həyata keçirmək istəyini inkişaf etdirir ki, bu da məktəbdə uğurlu təhsilin açarıdır. Oyunlardakı uğur onları yeni qələbələr qazanmağa ruhlandırır. Xoşbəxt uşağı öyrətmək, böyütmək, mənəvi potensialını inkişaf etdirmək daha asandır. Didaktik oyunların istifadəsi pedaqoji prosesin səmərəliliyini artırır, bundan əlavə, uşaqlarda yaddaşın və təfəkkürün inkişafına kömək edir, uşağın zehni inkişafına böyük təsir göstərir.

Didaktik oyunda sərbəst davranışlar, arzulanan hərəkətlərin reallaşması, motivlər və xüsusilə uşağın qazanmaq istədiyi zaman qadağan olunmuş qaydalar və ya rəqabət tipli oyunlara aid mübarizəsi formalaşır, ancaq qaydaların tələb etdiyi şəkildə hərəkət etmələri şərt olur. İdraki proseslər ixtiyari bir xarakter əldə edir, çünki oyunun məqsədini anlamaq və qəbul etmək, oyun hərəkətlərini və qaydalarını öyrənmək üçün tərbiyəçinin təklif və izahlarını diqqətlə dinləmək və anlamaq, sonra fərqləndirmə, müqayisə, ümumiləşdirmə prosesində fəal iştirak etmək lazımdır.

## TƏDQİQAT METODU

Məktəbəqədər uşaqlıq dövrü insanın inkişafının ən vacib mərhələlərindən biridir, onun psixi proseslərinin inkişafında ən aktiv dövrdür. Məhz bu yaşda bütün analizatorlar fəal çalışır, beyin qabığının ayrı-ayrı sahələrinin inkişafı və onlar arasında əlaqənin qurulması baş verir. Bu zaman

uşağın yaddaşının, nitqinin, diqqətinin, təxəyyülünün və təfəkküründün formalaşması üçün əlverişli şərait yaranır.

Şəxsi fikrimcə, bütün uşaqlar riyaziyyatı sevmirlər, lakin yaşından asılı olmayaraq hamısı oynamağı sevir. Oyun zamanı uşaqları öyrətməklə və inkişaf etdirməklə, oyun sevincinin öyrənmə sevincinə çevrilməsini təmin etməyə çalışmalıyıq.

Uşaqlarla işləyərkən məktəbəqədər uşaqların inkişafı üçün didaktik oyunlardan istifadə etməyin zəruriliyini görürük. Xüsusilə riyazi fikirlərin inkişafında əvəzsiz rol oynayırlar, uşaq sadə və cəld oynayır, lazımi materialı mənimsəyir.

Məktəbəqədər yaşlı uşaqlara riyaziyyatı öyrətmək əyləncəli didaktik oyunlardan, tapşırıqlardan və əyləncələrdən istifadə etmədən ağlasığmazdır.

Riyaziyyatın tədrisi prosesində əyləncəli material bilavasitə təhsil fəaliyyətinə daxil edilir və yeni biliklərin mənimsənilməsi, öyrənilən materialın genişləndirilməsi, dəqiqləşdirilməsi və möhkəmləndirilməsi zamanı istifadə olunur.

Riyazi məzmunlu oyunlar – ən məşhurdur və müasir məktəbəqədər təhsil praktikasında əyləncəli riyazi material növləri kimi tez-tez istifadə olunur. Oyunların spesifik xüsusiyyəti onların düşünülmüş olması, müəyyən məqsəd və nəzərdə tutulan nəticənin olmasıdır. Məktəbəqədər yaşda riyazi materialın bütün müxtəlifliyi arasında didaktik oyunlar ən çox istifadə olunandır. Onların əsas məqsədi – Uşaqları obyektlərin, ədədlərin, həndəsi fiqurların, istiqamətlərin və s. çoxluqlarını ayırd etmək, vurğulamaq, adlandırmaq üçün məşq etməkdir. Didaktik oyunlarda yeni biliklər yaratmaq imkanı var. Hər bir oyun uşaqlarda kəmiyyət, məkan və zaman anlayışlarını təkmilləşdirməyi hədəfləyir.

Bütün didaktik oyunları qruplara bölmək olar - bunlar: rəqəmlər və nömrələrlə oyunlar, zamanda səyahət oyunları, kosmosda oriyentasiya oyunları, həndəsi fiqurlarla oyunlar, məntiqi təfəkkür oyunları.

Rəqəmlər və nömrələrlə olan oyunlar:

Təlim zamanı biz uşaqlara birbaşa və tərs qaydada hesabı öyrədirik. Uşaqlardan həm kəmiyyət, həm də keyfiyyət rəqəmlərinin düzgün istifadəsini əldə etməliyik. Bütün bu oyunlar ədədin tərkibini, saymaq qabiliyyətini, diqqəti inkişaf etdirmək, ədədi obyektlərin (nöqtələrin) sayı ilə əlaqələndirmək bacarığını öyrənməyə yönəlib.

Zaman səyahəti oyunları:

Bu növ oyun zamanı, uşaqları həftənin günləri, fəsilləri, ayları, günün hissələri ilə tanış edirik. Həftənin günləri uşaqlara şeiri əzbərləməklə öyrədilməlidir. Daha sonra müxtəlif oyunlar tətbiq edərək, həmin mövzunu dərinləşdiririk.

Kosmosda oriyentasiya üçün oyunlar:

Uşaqlar sol, sağ, yuxarı, aşağı, irəli, arxa, uzaq, yaxın kimi məkan anlayışlarına yiyələnirlər. Didaktik oyunlardan istifadə edərək, uşaqlar başqa bir mövzuya münasibətdə müəyyən bir obyektin mövqeyini sözlə təyin etməyi öyrənirlər. Sərbəst fəaliyyət zamanı və dərslərdə bir çox didaktik oyunlar və məkan oriyentasiya məşqləri istifadə edilə bilər – Maşın, Sağ-Sol, Yuxarı-Aşağı və s.

Dərslər zamanı həmçinin kosmosda oriyentasiya və kağız üzərində oriyentasiya kartlarında məşqlərdən istifadə edilə bilər.

Həndəsi fiqurlarla oyunlar:

Bu oyunlar həndəsi fiqurların forması haqqında bilikləri möhkəmləndirməyə, eləcə də rənglər haqqında bilikləri möhkəmləndirməyə kömək edir. Uşaqlara ətrafdakı məkanda həndəsi fiqurlara bənzər əşyaları tapmağı təklif etmək olar.

**NƏTİCƏ**

Belə nəticəyə gələ bilərik ki, müxtəlif didaktik oyunlardan istifadə edərək uşaqlar riyaziyyatın proqram materialını daha yaxşı mənimsəyir və mürəkkəb tapşırıqları düzgün yerinə yetirirlər. Oyunlardan istifadə pedaqoji prosesin səmərəliliyini artırır, bundan əlavə, uşaqlarda yaddaşın və təfəkkürün inkişafına kömək edir, uşağın zehni inkişafına böyük təsir göstərir.

Sübut edilmişdir ki, məktəbəqədər uşaqların yaş imkanları onlarda elmi, ibtidai, elementar riyazi bilikləri inkişaf etdirməyə imkan verir. Bu o deməkdir ki, uşağın yaşına uyğun olaraq tədrisin forma və üsullarını seçmək lazımdır. Ona görə də uşağın konkret yaş mərhələsində müəyyən bilik və bacarıqlarının formalaşması üçün ən əlverişli şərait yaradılmalıdır.

**ƏDƏBİYYAT SİYAHISI**

1.Kərimov Y.Ş. Uşaq məktəbə gedir. Bakı: Nağıl evi, 2002, 142 s.

2.Kərimov Y.Ş. Təlim metodları (dərs vəsaiti). Bakı: "Azərnəşr",2009.

3.Рубинштейн С.Л.Основы общей психологии.М.: Просвещение, 1989,560с.

4.https://cyberleninka.ru/article/n/rol-didakticheskih-igr-na-razvitie-myshleniya-elementarnyh-matematicheskih-predstavleniy-u-detey-doshkolnogo-vozrasta

5.https://www.maam.ru/detskijsad/-ispolzovanie-didakticheskih-igr-v-obucheni-doshkolnikov-osnovam-matematiki.html

# СОДЕРЖАНИЕ ЛИНГВОКУЛЬТУРОЛОГИЧЕСКОЙ КОМПЕТЕНТНОСТИ И ЕЕ МЕСТО В ОБУЧЕНИИ ИНОСТРАННОМУ ЯЗЫКУ

**АЛЛАХВЕРДИЕВА МАЛАХАТ ФАРХАД ГЫЗЫ**
Бакинский славянский университет
Filologiya elmləri
malahat1967@gmail.com
БАКУ, АЗЕРБАЙДЖАН

**Резюме.** В статье рассматривается иноязычная коммуникативная компетентность, дается ее определение, структура и содержание. Иноязычная коммуникативная компетентность состоит из лингвистической, учебной, компенсаторной и социокультурной компетенции. Целью формирования коммуникативной компетенции является совершенный коммуникативный акт. Средствами достижения этой цели являются составные части коммуникативной компетентности (языковые знания и речевые навыки, лингвострановедческая составляющая обучения и др.). Иностранный язык несет в себе не только систему лингвистических знаний, но и систему знаний о социальных нормах, нравственных ценностях, совокупности отношений между людьми. А эти знания может дать лингвокультурология, которая находится на стыке языка и культуры.

**Summary**. The article examines foreign language communicative competence, gives its definition, structure and content. Foreign language communicative competence consists of linguistic, educational, compensatory and socio-cultural competences. The purpose of forming a communicative competence is a perfect communicative act. The means to achieve this goal are the components of communicative competence (language knowledge and speech skills, the linguistic and cultural component of learning, etc.). A foreign language carries not only a system of linguistic knowledge, but also a system of knowledge about social norms, moral values, and the totality of relations between people. And this knowledge can be provided by linguoculturology, which is located at the junction of language and culture.

**Ключевые слова**: иноязычная коммуникативная компетентность, составные части коммуникативной компетентности, лингвистический и социокультурный компетенции.

**Введение**. С увеличением работ по сравнительному изучению языков и переводу лингвокультурологический подход стал актуальным и требующим особого внимания. Исследование культуры через язык не является новой идеей; об этом писали А.Брюкнер, В.В.Иванов, В.Н.Топоров, Н.И.Толстой, Ежи Бартминский, Низами Джафаров (2021), Исмаил Казимов (2021), Нигяр Велиева (2013), Арзу Нифталиева (2017) и другие ученые. Культура в их

работах рассматривается не просто как смежная с лингвистикой наука, а как феномен, без глубокого анализа которого нельзя постичь тайны человека, тайны языка и текста.

Методы лингвокультурологии - это совокупность аналитических приемов, операций и процедур, используемых при анализе взаимосвязи языка и культуры: сравнение, описание, фреймовый анализ, классификация и др. В настоящее время одним из важнейших направлений обучения является использование компетентностного подхода. А это требует развития умений и навыков, связанных с применением на практике коммуникативных способностей человека, его культурной, социальной и информационной компетентности. Несмотря на широкое обсуждение этого вопроса в научно-педагогической литературе, в средних и высших учебных заведениях преобладает когнитивный подход, и учащимся приходится запоминать большие объемы информации вместо того, чтобы развивать базовую лингвокультурологическую компетентность, необходимую для успешной деятельности.

**Содержание статьи.** Любая знаковая система характеризуется такими фундаментальными понятиями, как компетентность, предполагающая знание и использование системы, применение единиц этой системы в деятельности. Переход от индивидуального использования к лингвокультурной компетентности как социально значимой системе позволяет глубоко понять природу культурного значения, которое несет в себе тот или иной языковой знак.

Социо-культурный мнем является полным и нормативным отражением элемента лингвокультурной компетентности (предмета, понятия и т. д.). Понятие индивидуального мнема перекликается с индивидуальной идентичностью, а социо-культурный (лингвокультурологический) - с национальной идентичностью.

Структура лингвокультурологической компетенции предполагает два уровня: языковой и неязыковый, предполагающий особенности культурной действительности, ее применения и использования. Например, выражение "*barmaqla saymaq*"/"*посчитать по пальцам*" существует во многих языках, совпадая по компонентному составу и общему значению, но на неязыковом уровне его можно трактовать по-разному. Так, у азербайджанцев этот счет происходит, складывая пальцы, а у французов - разворачивая их. Система знаков должна раскрывать систему реальных знаний о культуре, представленную в виде модели. В этой модели непосредственная языковая картина мира как компетенция углубляется в лингвокультурологическую картину мира, в систему знаний о культуре, отраженную в том или ином национальном языке. Поэтому для расшифровки языковых знаков и выражений требуются нелингвистические методы.

Прагматический аспект цели обучения иностранному языку заключается в том, чтобы помочь учащимся овладеть этнокультурными ценностями страны, язык которой изучается; знаниями, позволяющими практическое использование иностранного языка в ситуациях межкультурного взаимопонимания; содержание привычек и умений составляет коммуникативную компетентность обучаемого. Концепция коммуникативной компетентности стала результатом попыток установить границы между академическими и базовыми межличностными коммуникативными навыками человека.

Формирование умения вступать в общение на иностранном языке в процессе обучения иностранному языку с помощью коммуникативного подхода или, другими словами, коммуникативная компетентность предполагает умение использовать все виды речевой деятельности: чтение, речь (монолог, диалог), аудирование, письмо.

Ведущим компонентом коммуникативной компетенции являются речевые (коммуникативные) навыки. Они формируются на основе:

- языковых навыков и умений;
- знаний, относящихся к лингвострановедению и страноведению.

Коммуникативная компетентность включает в себя следующие важные навыки (Niftəliyeva, 2017, s. 40):

- чтение и понимание простых аутентичных текстов (понимание и полное понимание основного содержания);
- умение устно общаться в стандартных ситуациях в учебно-трудовой, культурной, бытовой сферах;

- умение в устной и краткой форме рассказать о себе, об окружающих, высказать свое мнение, оценить ситуацию;

- составление элементарной информации (письма) в письменной форме.

Иноязычная коммуникативная компетентность - это определенный уровень владения языковыми, речевыми и социокультурными знаниями, привычками и умениями, позволяющий обучаемому разумно и целенаправленно регулировать свое речевое поведение в зависимости от ситуации общения.

«Иноязычная коммуникативная компетентность необходима и достаточна для упорядоченного решения обучающимися практических коммуникативных вопросов в изучаемых ситуациях бытового, педагогического, научного, делового, политического и социально-политического общения, для развития способностей и качеств, необходимых для коммуникативного и социокультурного развития» (Гальскова, 2003, с. 65).

Иноязычная коммуникативная компетенция имеет сложную **структуру** и включает в себя ряд компетенций.

**Лингвистическая компетенция** - одна из основных составляющих коммуникативной компетенции. Ее содержание составляет умение человека правильно строить грамматические формы и синтаксические конструкции в соответствии с нормами конкретного языка. Как один из основных компонентов коммуникативной компетенции лингвистическая компетенция подразделяется на *языковую* и *речевую* компетенции.

*Языковая компетенция* предполагает владение знаниями в области языковой системы (в пределах программного минимума), навыки использования этих знаний. *Речевая компетентность* предполагает владение нормами речевого поведения (во всех видах речевой деятельности).

**Учебная компетенция** - это способность и готовность человека осуществлять учебную деятельность в процессе освоения иностранного языка как учебного предмета. Важность учебной компетентности для обучающегося заключается в следующем:

- организует и оптимизирует самостоятельную работу учащихся над языком;

- сокращает временные, физические и умственные затраты на занятия над иностранным языком;

- повышает качество общения на иностранном языке;

- повышает интерес к предмету.

В **содержание** процесса формирования учебной компетенции входит:

- обобщенные, имеющиеся на практике знания о рациональных методах выполнения учебного труда, о существующих вариантах выполнения учебных действий при отсутствии заданного алгоритма;

- оценивание собственного начального положения в области рациональной организации учебной деятельности, выбор методов учебной деятельности, более соответствующих личностным особенностям, формирование и активное использование индивидуально-рационального набора умений и навыков обучения, самостоятельный контроль правильности этого выбора;

- специальные обучающие навыки для овладения общением на иностранном языке: рациональная организация запоминания иноязычного материала, самостоятельная активизация языкового материала, контроль межпредметных связей, работа в паре при выполнении иноязычных действий, видение трудностей при работе над языковыми элементами.

**Компенсаторная компетенция** - это способность преодолевать трудности в создании выражений на иностранном языке, т. е. ее формирование направлено на преодоление недостатков в собственном знании иностранного языка, навыках и умениях.

Важность компенсирующей компетенции заключается в следующем:

- позволяет преодолеть трудности, возникающие в связи с незнанием языковых единиц, непониманием социокультурных единиц;

- дает самостоятельность, позволяет преодолеть языковой барьер;

- развивает свою коммуникативную компетентность на родном языке (Астапова, 2007, с.170).

*Содержание* процесса формирования компенсаторной компетенции включает в себя:

- вербальные и невербальные средства компенсации недостатков в общении (синонимы, перифразы, мимика, жесты, движения тела), компенсирующие стратегии - модели речевого поведения, набор речевых действий для повторного достижения поставленной коммуникативной задачи;

- уметь использовать синонимы, перифразы, названия видов, обобщающие слова; навыки и умения использования аналогий, ассоциаций, словарного запаса, словообразовательных знаний, навыки и умения описания; навыки и умения повторять слова, задавать вопросы, обращаться за помощью к человеку, с которым вы общаетесь.

**Социокультурная компетентность** - это способность строить речевое и неречевое поведение с учетом норм носителей изучаемого языка.

Важность социокультурной компетентности прослеживается:

- в познании национального менталитета, картины мира;

- в преодолении культурологических трудностей;

- в осознании того, что расширяются представления о собственном мировоззрении, о другом социокультурном единстве.

Социокультурная компетентность подразделяется на три вида:

- *социолингвистическая компетентность* предполагает способность осуществлять выбор языковой формы, адекватной условиям коммуникативного акта, то есть ситуации общения, целям и намерениям общающихся, их социальным ролям.

- *Культурологическая компетенция* предполагает освоение учащимися национально-культурных особенностей страны, в которой изучается язык, и умение строить свое речевое и неречевое поведение в соответствии с этой спецификой. Учащимися предполагается овладение следующими сведениями: о языковой стране, о ее географическом положении, природных условиях, достопримечательностях, государственном устройстве, о национальных особенностях культуры и быта языковой страны, об особенностях речевого и неречевого поведения носителей иностранного языка.

- *Лингвострановедческая компетенция* предполагает овладение безэквивалетной лексикой (в пределах изучаемых предметов) и приемами ее передачи на родном языке; овладение фоновой лексикой, реалиями, характерной для текстов, используемых в процессе обучения, приемами передачи реалий родного языка на иностранном языке (в пределах изучаемых предметов) (Астапова, 2007, с.175).

В процессе общения имеет место ориентация на социальные характеристики речевого партнера: его статус, положение, роль в ситуации, что проявляется в выборе альтернативных речевых средств со стратификаторами и речевыми ограничителями.

**Заключение**. Коммуникативную компетентность можно определить как «необходимые средства контроля речевой ситуации и ее формирования в социальном контексте». Целью формирования коммуникативной компетенции является совершенный коммуникативный акт. Средствами достижения этой цели являются составные части коммуникативной компетентности (языковые знания и речевые навыки, лингвострановедческая составляющая обучения и др.).

**Список литературы**

1. Cəfərov, N. (2021). Multidissiplinar dilçilik (dərs vəsaiti). Bakı: Elm və təhsil, s.142-180 səh.

2. Kazımov, İ. (2021). Müasir Azərbaycan dili leksikasının koqnitiv və linqvokulturoloji əsasları //Azərbaycan dili və ədəbiyyat tədrisi, № 3 (269), s.10-29.

3. Niftəliyeva, A. (2017). Linqvokulturologiyaya giriş. Bakı: Mütərcim. – 128s.

4. Veliyeva, N. Ch. (2013). Some aspects and peculiarities of Intercultural communication in the process of globalization. Bakı: Elm və təhsil, 504s.

5. Астапова, Н.О. (2007). Лингвистические аспекты межкультурной коммуникации. Барнаул: АГУ. – 256 с.

6. Гальскова, Н.Д. (2003). Современная методика обучения иностранным языкам. Москва: АРКТИ. – 192с.

# MÜASIR DƏRSLƏRDƏ INTERAKTIV TƏLIM METODLARINDAN ISTIFADƏ

**AZƏR HÜSEYNOV**
Bakı Slavyan Universiteti
Magistratura/Pedaqogika
*theazer62@gmail.com*
BAKI, AZƏRBAYCAN

**XÜLASƏ**

Təlim prosesinin düzgün qurulması müasir dövrün əsas tələblərindən biridir. Bunun üçün bizə yeni təlim texnologiyaları kömək edir. Cəmiyyətimizin sürətli inkişafı elm, mədəniyyət, təhsil və s. sahələrdə də özünü göstərmişdir. Bu gün elm, təhsil sürətlə inkişaf etməkdədir. Yeni təlim texnologiyalarından istifadə daha da genişlənir. Xüsusilə təlim prosesində istifadə olunan təlim texnologiyaları və təlim metodları təlimin daha səmərəli olmasına, öyrənənlərin fəallaşmasına, idrak proseslərinin və təfəkkürün inkişafına kömək edir. Məqalənin məqsədi təlim prosesində, müasir dərs zamanı yeni təlim metodlarından istifadə yollarını araşdırmaq və hansı metodların təlimdə daha yüksək nəticə əldə etməyə imkan yaratdığını öyrənməkdir. Dövrümüzdə təhsil sahəsində yeni təlim texnologiyalarından və metodlarından istifadə edilməsi təhsil sahəsində aktual məsələlərdən biridir. Eyni zamanda məqalədə interaktiv təlim metodlarının tədrisdə tətbiqi araşdırılır. Müasir dərslərdə fəal(interaktiv) təlim metodlarından istifadə, onların təlim-tədrisə göstərmiş olduğu müsbət təsirinin müəyyənləşdirilməsi məqalənin elmi yeniliyi kimi dəyərləndirilir. Fəal(interaktiv) təlim metodları, həm ümumtəhsil, həm də ali təhsil müəssisələri üçün müəllimin öz işini düzgün qurmasında faydalı mənbədir. Həm də öyrənənlərin bilik, bacarıq və vərdişlərinin möhkəmlənməsində əhəmiyyətli yeri var. Məqalədə müşahidə, eksperiment, müqayisə, təhlil həmçinin də analiz metodlarından istifadə olunmuşdur. Burada qoyulan məsələ müxtəlif ədəbiyyatlarda müxtəlif cür tədqiq edilmişdir. İnteraktiv təlim zamanı istifadə olunan metodların şəxsiyyətin formalaşmasında mühüm rolu olduğu vurğulanır.

**AÇAR SÖZLƏR:** Yeni təlim texnologiyaları, təlim metodları, İKT, Fəal (interaktiv) təlim, ənənəvi təlim

**USE OF INTERACTIVE TEACHING METHODS IN MODERN CLASSES**

**SUMMARY**

The correct establishment of the training process is one of the main requirements of the modern era. New training technologies help us for this. The rapid development of our society in science, culture, education, etc. has also shown itself in the fields. Today, science and education are developing rapidly. The use of new learning technologies is expanding. In particular, the learning technologies and learning methods used in the learning process help to make learning more efficient, make learners more active, and develop cognitive processes and thinking. The purpose of the article is to investigate the ways of using new teaching methods in the training process, during the modern lesson, and to learn which methods make it possible to achieve higher results in training. In our time, the use of new learning technologies and methods in the field of education is one of the urgent issues in the field of education. At the same time, the article examines the application of interactive learning methods in teaching. The use of active (interactive) teaching methods in modern classes, the determination of their positive effect on teaching and learning is evaluated as a scientific innovation of the article. Active (interactive) learning methods are a useful resource for the teacher to do his job properly, both for general education and higher education institutions. It also plays an important role in strengthening the knowledge, skills and habits of learners. Observation, experiment, comparison, analysis and analysis methods were also used in the article. The issue raised here has been studied in different ways in different literatures. It is emphasized that the methods used during interactive training have an important role in personality formation.

**KEY WORDS:** New learning technologies, teaching methods, ICT, active(interactive) training, traditional training

## GIRIŞ

Təhsil islahatına dair direktiv sənədlərdə göstərilir ki, həyatımızın bütün sahələrində baş verən dəyişikliklər, yeniləşmə yalnız sosial, iqtisadi, siyasi sahədə deyil, habelə təhsil sahəsində yeniliklərin həyata keçirilməsinə zəruri ehtiyac duyulur. Bu yeniliklərin isə ən başlıcası təlimin məzmununun yaxşılaşdırılması ilə mümkündür. Təhsilin məzmununun yaxşılaşdınıması isə yeni təlim texnologiyalarının tətbiqi ilə həyata keçirilir. Təlimin keyfiyyəti yeni texnologiyaların tətbiqindən asılı olduğu üçün bu problem mühüm aktuallıq kəsb edir (Sadıqov, 2006). Mütərəqqi həyat tərzi və yeni texnologiyaya əsaslanan düşüncə sistemi, cəmiyyətimizin yaşayışına asta və mükəmməl şəkildə daxil olmaqdadır. Hal-hazırda təhsilin məzmununun yaxşılaşdırılmasında yeni təlim metodlarından səmərəli istifadənin böyük rolu var.

Pedaqoji ədəbiyyatlarda təlim texnologiyaları 3 formada verilir.

Ənənəvi təlim

Fəal təlim

İnteraktiv təlim

Ənənəvi təlim metodu uzun illər boyu istifadə edilmişdir. Bu metod zamanı əsas rolu müəllim oynayır. Burada müəllim yalnızca öyrənilən mövzunu şagirdlərə diktə edir. Belə olan halda da, heç kim əminliklə şagirdlərin bu bilikləri lazımi səviyyədə mənimsədiyini deyə bilməz. Həmçinin, ənənəvi təlim zamanı şagirdlərin təfəkkürünün inkişafı üçün də stimul yarnmır və şagirdlərin idrak prosesi kütləşir. Bunun nəticəsində də, təlimin səmərəliyi azlır, keyfiyyəti aşağı düşür. Ənənəvi təlim prosesi zamanı müəllim fəal, şagirdlər isə passiv olurlar. Şagirdlər sadəcə qiymət xətrinə oxuyurlar.

Fəal təlim prosesi zamanı isə müəllim şagird arasında qarşılıqlı əməkdaşlıq, ünsiyyət, fikir mübadiləsi olur. Burda artıq şagirdlər passiv deyil , onlar dərsin fəal iştirakçılarına çevrilirlər. Ənənəvi təlimdə müəllim fəal, şagir passiv olurdusa, fəal təlimdə artıq hər iki tərəf, müəllim də şagird də dərsin əsas, aktiv iştirakçıları olurlar. Fəal təlimdə müəllim şagirdə təsir göstərdiyi kimi, şagird də müəllimə təsir göstərir. Fəal təlimdə müəllim şagirdə öyrətdiyi kimi, müəllim özü də şagirddən öyrənir. Fəal təlimdə qarşılıqlı dialoq, əməkdaşlıq hökm sürür (İbrahimov, Hüseynzadə, 2012).

Fəal təlimin prinsiplərini aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Şəxsiyyətə yönəlmiş təlim prinsipi
2. Fəal idraki prinsip
3. İnkişafetdirici təlim prinsipi
4. "Qabaqlayıcı təlim" prinsipi
5. Təlim-tərbiyənin çevikliyi prinsipi
6. Əməkdaşlıq prinsipi
7. Dioloji təlim prinsipi (İbrahimov, Hüseynzadə, 2012).

Yeni təlim metodlarından biri interaktiv təlim metodlarıdır. İnteraktiv təlim metodları ən yeni təlim texnologiyalarından sayılır. Fəal və interaktiv təlim anlayışlarının bir çox cəhətləri bir-birilə çox yaxın və ümumidir. Belə ki, hər iki metodla keçilən dərs şagirdləri fəallışdırmağa yönəldilmiş, hər ikisində şagirdlərə hazır biliklər verilmir, onlar axtarıcılığa, tədqiqatçılağa sövq edilir, hər ikisində müəllim şagird münasibətləri, ünsiyyət və dialoqlar hökm sürür (İbrahimov, Hüseynzadə, 2012).

İnteraktiv təlim zamanı müəllim fasilitator ("bələdçi") mövqeyində olur. Şagirdlərə hazır biliklər vermir, onları axtarıcılığa, araştırmağa istiqamətlədirir. Çünki şagirdlərə verilən hazır bilikdənsə, onların özlərinin axtarıb tapdığı məlumatlar daha uzun müddət yadda qalır. İnteraktiv təlim prosesində şagirdin mövqeyi - "kəşf edən", "tədqiqatçı", araşdırıcı" mövqeyidir; o, gücü çatdığı məsələlər və problemlərlə üzləşərkən, bunları müstəqil tədqiqat prosesində həll edir. Şagirdlər təlim prosesində passiv dinləyici deyil, fəal düşünən, danışan, fikir söyləyən, münasibət bildirən, biz subyekt, təlim prosesinin tamhüquqlu iştirakçısı, tədqiqatçısı kimi çıxış edir və bilikləri fəal axtarış və kəşflər prosesində mənimsəyirlər (İbrahimov, Hüseynzadə, 2012). Yeni təlim texnologiyaları ilə qurulan hər hansı bir dərs zamanı öyrədilən mövzunun tədrisi zamanı mütləq yeni təlim metodlarından müraciət edilməsi, istifadə olunması tələb olunur.

Günümüzdə Avropanın bir çox inkişaf etmiş ölkələrində interaktiv təlim metodlarının müxtəlif növlərindən istifadə edilir. İnteraktiv metodlarla qurulmuş dərslərdə demokratik mühit yaradılmalıdır ki, burada da müəllimdən yüksək səviyyədə bacarıq tələb olunur. Çünki, müəllim elə bir şərait yaratmalıdır ki, burada həm müəllimin özü, həm də şagirdlər (öyrənənlər) sərbəst olsunlar, özlərini

sərbəst hiss etsinlər. Belə olan halda da müəllim şagirdlərin fəallaşmasına, aktivləşməsinə şərait yaradn mediator yəni, vasitəçi rolunda çıxış etməlidir.

Dərs zamanı istifadə edilən interaktiv təlim metodlarına keçməmişdən əvvəl "interaktiv" sözünün nə demək olduğunun, bunun hansı mənanı kesb etdiyi haqqında qısa məlumat verək.

"İnteraktiv" latın sözü olub, iki mənada təqdim olunur. Birincisi "intero" şəklində, yəni "daxili", "içəri" mənasında, ikincisi isə "internaşin" şəklində yəni "ara", "qarşılıqlı əlaqə", "dialoq" "beynəlxalq" mənasında işlədilir. "Aktiv" və ya "akt" sözü isə beynəlxalq status almış "aktivişhin" sözündən olub, "fəaliyyət", "fəal", "fəallıq", "fəallaşmaq" mənasında işlədilir. Demək, "İnteraktiv" "qarşılıqlı əlaqə", "anlaşma", "əməkdaşlıq", "dialoq" deməkdir. Bu prosesdə hər iki tərəfin fəallığı mühüm yer tutur. Bu fəallaşma adi və normal fəallaşma kimi deyil, çevik və dinamik fəallaşma kimi başa düşülür. Deməli, "interaktiv" sözü pedaqoji prosesin son dərəcə dinamik fəallaşdırılması kimi başa düşülməlidir. Bu prosesdə hər bir şagirdin öz müstəqil fikri, düşüncəsi və ideyası olur və hər bir zəif şagird də fəallaşır. Bütün bunlar da, heç şübhəsiz, təlim keyfiyyətinin yüksəlməsinə, təkmilləşməsinə bilavasitə təsir göstərir, şagirdlərin mənimsəmə keyfiyyətini artırır (İbrahimov, Hüseynzadə, 2012).

Fəal (interaktiv) təlim metodlarına aşağıdakılar aiddir:

Beyin həmləsi və ya əqli hücum, rollu oyunlar, müzakirə, diskussiya, akvarium, BİBÖ, Venn diaqramı, söz assosiasiyaları, modelləşdirmə, qərarlar ağacı, problemin həlli, auksion, klaster, debat, esse, Sokrat üsulu, təqdimatlar, kublaşdırma, sorğu vərəqləri, ideyalar xalısı, anlayışın çıxarılması, ziqzaq, karusel və s.

Adını çəkdiyimiz interaktiv metodların (texnologiyaların, priyomların) hamısı bütün siniflərdə eyni səviyyədə tətbiq oluna bilməz. Onlardan bəziləri ibtidai və orta siniflər üçün daha xarakterdir. Məsələn, rollu oyunlar,qar topası, ideyalar xalısı, söz assosiasiyaları, söz zənciri, kar adamla söhbət, çəkic və s.

Bəziləri bütün siniflər üçün məqsədəmüvafiqdir. Məsələn, əqli hücum, BİBÖ,Venn diaqramı, esse, şaxələndirmə və s.

Bəziləri isə yuxarı siniflər üçün daha xarakterikdir. Məsələn, disput, diskussiya, debat və s. (Bədəlova, 2015).

İndi isə bu metodların qısa şərhinə baxaq.

**"Əqli hücum"** və ya **"Beyin həmləsi".**

"Beyin həmləsi" metodu ("əqli hücum") (ingl. brain storming) - 1953-cü ildə Amerika psixoloqu A. Osborn tərəfindən ideyaların yaradılması (cəmləşməsi, yığılması) və məsələlərin həlli vasitəsi kimi təklif edilmişdir (Veysova, 2007).

Bu metod zamanı müəllim, keçirilən mövzuya uyğun olaraq şagirdlərə suallar ünvanlayır və şagirdlərin cavablarını dinləyir. Şagirdlərin cavablarının doğru və ya səhv olmasından aslı olmayaraq müəllim heç bir fikir bildirmir. Yalnız sonda müəllim verilən cavabları təhlil edir. Beyin həmləsi metodunun yerinə yetirilmə alqoritmi aşağıdakı kimidir:

1. Müəllim həll olunmalı problemi elan edir.
2. Aparıcı ("ideyaların generatoru" - ideyaların axtarışına yönəldən) müəyyən edilir. Bu rolda həm müəllim, həm də şagird ola bilər
3. Təlimat verilir ki, şagirdlər problemin həlli üçün bütün ilk ağıla gələn ideyaları sürətlə, qısaca və konkret ifadələrlə bildirsinlər. Bu ideyalar fantastik, ağlasığmaz, qeyri-adi, absurd, hətta zarafatyana və ya uzaqgörən ola bilər. Şagirdlər öz həmyaşıdlarının şərhlərinə istinad edə bilər, tənqid etmədən bu şərhləri tamamlayıb başqa formaya sala bilərlər. Təkliflər qiymətləndirilmir və tənqid edilmir.
4. Bütün qrup bu problemin həllinə cəlb olunur. Əsas məqsəd: mümkün qədər çox fikir toplamağa nail olmaq
5. Qısa vaxt ərzində verilən bütün fikir və təkliflər aparıcı-«generator» tərəfindən qeyd olunur (kağızda, lövhədə, video və ya audiokasetdə və s.).
6. Yerinə yetirilmiş işin nəticəsində bütün deyilən fikirlər təhlil edilir. Bunun üçün aparıcı qəbul edilmiş və irəli sürülmüş ideyaları təşkil etmək üçün onların təsnifatını edə bilər. Bu zaman meyarlar müəyyənləşdirir; meyar kimi ümumi kateqoriyalar, simvollar, əsas sözlər, təsvirlər və s. çıxış edə bilər. Bu iş üçün aparıcı 5-10 dəqqiqə vaxt ayırır və bütün siniflə birlikdə işləyir.

7. Aparıcı ideyaları bir daha yekunlaşdırır: şagirdlər artıq bildirilmiş ideyaları tənqidi təhlil edir, qiymətləndirir, mübahisə və əks-mübahisə aparır. Şagirdlər müzakirə olunan problemin mümkün həlli üçün orijinal və ya ən yaxın ideyaları seçirlər. Bu ideyalardan irəli gələn mümkün risk və ziddiyyətlər barəsində sərbəst müzakirə apaırlır.

8. Bu mərhələ kiçik qruplarda da aparıla bilər. Müəyyənləşdirilmiş meyarlar əsasında qrup yardımçı qruplara bölünür. Hər bir yardımçı qrup öz nəticələrini göstərir və onları həmyaşıdları ilə bölüşür. Onlar bunu sözlərlə, bütöv ifadələrlə, kollajlarla, təsvirlərlə, rəsmlərlə, mahnılarla və ya rollu oyunlarla təqdim edə bilər (Veysova, 2007).

Beyin həmləsi metodunda əsas şərt ondan ibarətdir ki, burada ayrılmış vaxta riayət edilsin, cavablar verilən zaman heç bir tənqid edilməsin, tam azad, şagirdlərin öz fikirlərini sərbəst söyləyə biləcəkləri bir mühit yaratmaqdan ibarətdir.

**Akvarium**

Şagirdlərin diskussiya vərdişlərinin inkişafı akvrium metodunun əsas məqsədini təşkil edir. Bu metod iki formada keçirilə bilər.

I variant: Akvariumun I variyantının keçirilmə qaydası belədir ki, burada şagirdlər 2 qrupa bölünür və dairə yaradılır. Dairənin içində 1-ci qrup, çölündə isə 2-ci qrup stullarda əyləşirlər. Daha sonra, müəllim tərəfindən elan edilmiş mövzu barəsində 1ci qrup diskussiya aparır, 2-ci qrup yəni dairənin xaricində olan şagirdlər onları dinləyir. 15-20 dəqiqə mövzu barəsində diskussiya edildikdən sonra diskussiya dayandırılır və dairənin xaricindəki 2-ci qrup diskussiyanın gedişi barəsində öz fikirlərini söyləyir, diskussiyanın gedişini qiymətləndirir və daha sonra 1-ci qrupla yerlərini dəyişir və mövzu haqqında öz diskussiyalarını davam etdirirlər.

II variant: "Daxili dairənin" iştirakçıları müəllimin təklif etdiyi problemi müzakirə edir və I variantdan fərqli olaraq, iştirakçılar bu zaman yalnız problemin "lehinə" olan dəlilləri söyləyirlər.

Digər qrupun üzvləri xarici dairədə stullarda əyləşirlər, dəlilləri dinləyir, yazıya alır, təhlil edir, öz əks-dəlillərini hazırlayırlar. 15-20 dəqiqədən sonra diskussiya dayandırılır, xarici və daxili dairədən olan şagirdlər öz yerlərini dəyişirlər. Onlar əvvəlki iştirakçıların dəlillərini təkzib etmək üçün diskussiya aparırlar (Veysova, 2007).

Akvariyum metodu zamanı sonda qrupların ortaq, vahid bir fikrə gəlməsi şərt deyil.

**BİBO**

Müəllim dərsə "beyin həmləsi" strategiyası ilə başlayır. Şagirdləri cütlərə ayırandan sonra sinfə sual verilir (İbrahimov, Hüseynzadə, 2012). Hər bir cüt verilən sual barəsində bildiklərini kağıza qeyd edirlər. Şagirdlər bunu edərkən də, nüəllim yazı yaxtasında 3 hissədən ibarət olan cədvəl şəkli çəkir. 1-ci hissədə "nəyi bilirik?", 2-ci hissədə "nəyi bilmək istəyirik?", 3-cü hissədən isə "öyrəndiklərimiz" qeyd olunur.

Daha sonra verilən sualla bağlı cütlər öz fikirlərini müəllimlə birliktə təhlil edirlər və ümumi razılığa gəlinən fikirlər cədvəlin 1-ci hissəsində "Bilirəm" hissəsində yazılır. Sonra müəllim şagirdlərə bu sualla bağlı daha nəyi bilmək istəyirsiz? deyə sual verir və bu cavablar da təhlil edilib 2-ci hissədə yazılır. Bundan sonra isə müəllim şagirdlərə mətnlər paylayır və şagirdlər bu mətni oxuyub öyrəndiklərini 3-cü hissədən qeyd edirlər.

BİBÖ metodu nəticəsində şagirdlərin əvvəl öyrəndikləri məlumatları xatırlanılır, daha da möhkəmləndirilir və yeni məlumatlar öyrənilib mənimsənilir.

**Dəyirmi masa**

Dəyirmi masa metodunda ilk olaraq müəllim sinfi qruplara bölür və hər qrupa vatman kağızı və qrupdakı şagirdlərin sayı qədər rəngli qələm verir. Dəyirmi masa metodunda vatman kağızı hər bir qrupun öz daxilində dairə kimi dönür. Yəni ki, müəllim mövzu ilə bağlı kağıza bir ifadə yazır sonra isə şagirdlər bir-bir bu ifadə ilə bağlı öz sözlərini yazıb vərəqi sol tərəfdəki şagirdə ötürürlər. Hər bir şagird özünə düşən rəngli qələmlə öz fikrini yazmalıdır.

Məsələn, ədəbiyyat dərsində Nizami Gəncəvinin yaradıcılığı mövzusunun tədrisi zamanı müəllim vatmanda bir söz yazır: "Xəmsə". Qrupun üzvlərinin hər biri sıra ilə öz əlavələrini edirlər. Şagir- din biri yazır "Beşlik", digəri "Sirlər xəzinəsi", o biri "Leyli və məcnun" və s. beləliklə, bütün üzvlər xəmsə ilə əlaqədar bildiklərini sıra ilə qeyd edirlər. Qruplar işlərini bitirdikdən sonra hər qrup öz işini təqdim edir. Hansı qrupun mövzunu nə dərəcədə mənimsəməsi aydın olur. Sonda müəllim ümumi nəticə çıxarır (İbrahimov, Hüseynzadə, 2012).

**Esse**

Esse hər hansı problem haqqında şagirdlərin müstəqil düşüncələrini əks etdirən yazılı işidir, "etuddur". Essenin həcmi bir səhifədən çox olmamalıdır. Şagirdlər essenin açağıdakı plana əsasən yazmalıdırlar:

1. Problem üzrə öz fikirlərinin izahı.
2. Arqumentlər, faktlar və mənbələrdəki məlumatlarla fikrin əsaslandırılması.
3. Ümumiləşdirilmiş nəticələr (Veysova, 2007).

**Venn diaqramı**

Venn diaqramı iki kəsişən dairədən ibarətdir. Bu dairələrdən sağ və sol tərəfdə 2 müqayisə olunan obyektin fərqləri ortadan, yəni kəsişən hissədən isə oxşar cəhətləri yazılr.

Venn diaqramı zamanı müəllim sinifi qruplara bölür və şagirdlərə mətnlər paylayır. Şagirdlər bu mətləri oxuyub venn diaqramını qururlar. Qruplar işlərini tamamladıqdan sonra hər bir qrup öz işini təqdim edir. Ən sonda isə müəllim nəticələri ümumiləşdirir və lövhədən çəkdiyi venn diaqramında qeyd edir. Bütün fənlərin tədrisi zamanı venn diaqramından istifadə oluna bilər.

**Karusel**

Bu metodda da müəllim sinfi qruplara ayırır və kağıza qrupların sayı qədər sual yazır, sonra isə kağızı 1-ci qrupa verir. 1-ci qrup -ci sualın cavabını yazıb kağızı 2-ci qrupa ötürür və belə davam edir. kağız yenidən 1-ci qrupa qayıtdıqda isə artıq 2-ci sualın cavabı yazılır və kağız yenidən digər qrupa ötürülür. Yəni bir sözlə, kağız "karusel" kimi ortada fırlanır. sonda isə müəllim kağızı yazı lövhəsindən asır və sualların cavabları təhlil olunur.

**Kub**

Kublaşdırma (Kovan E. və Kovan C., 1980) mövzunun hərtərəfli öyrənilməsi məqsədilə şagirdləri onu təsvir və müqayisə, əlaqələndirmə, təhlil, tətbiq və mübahisə etməyə istiqamətləndirir (Veysova, 2007).

Kub metodu zamanı ilk olaraq kağızdan kiçik bir kib düzəldilir və bu kubun hər bir üzünə - Təsvir et; Müqayisə et; Əlaqələndir; Təhlil et; Tətbiq et; Lehinə yaxud əleyhinə mübahisə et ifadələri yazılır.




**Şəkil 1.** Kub metodunun təsviri (İbrahimov, Hüseynzadə, 2012).

Daha sonra müzakirə olunacaq mövzu müəllim tərəfindən elan edilir, sinif 6 qrupa bölünür və müəllim işin necə aparılacağını şagirdlərə başa salır. Sonra isə şagirdlər təsvir, müqayisə, əlaqələndirmə, təhlil, tətbiq, mübahisə edir:

a) Təsvir etmək: rənglər, formalar, ölçülər və s.

b) Müqayisə etmək: oxşar və fərqli cəhətlər hansılardır?

c) Əlaqələndirmə (assosasiya yaratmaq): Bu sizi nə haqda düşünməyə vadar edir? Nəyi xatırladır?

d) Təhlil etmək: onun nədən və necə hazırlandığını təsvir et.

e) Tətbiq etmək: Sən onunla nə edə bilərsən? Sən ondan necə istifadə edə bilərsən?

f) Onun lehinə və ya əleyhinə çıxış et və öz mövqeyini dəstəkləmək üçün arqumentlər təqdim et: O yaxşıdır yoxsa pisdir? Niyə? (Veysova, 2007).

Sonda isə şagirdlər təqdimatlar hazırlayıb çıxış edirlər və sonra ümumiləşdirmələr aparılıb nəticələr çıxarılır.

**Klaster (şaxələndirmə)**

Klaster metodu elə bir metoddur ki, bu metoddan istifadə zamanı şagirdlərin sərbəst və geniş düşünməsinə şərait yaradılır. O sadə və yaddaqalan bir metoddur. Bu metod əsasən dərsin əvvəlində

yeni mövzu keçilməmişdən əvvəl tətbiq edilir. Klaster metodu müxtəlif formalarda həm fərdi, həm cüt həm də böyük və kiçik qrup şəklində keçirilə bilər. Bu metodun tətbiqi zamanı fikirdən fikir, mövzudan mövzu doğur, yeni assosiasiyaların yaranması imkanı genişlənir (İbrahimov, Hüseynzadə, 2012). Klaster metodu aşağıdakı kimi tətbiq olunur.

1.İri ağ kağız götürülür.

2.Kağızın mərkəzində söz, hər hansı fənnə aid termin, cümlə və s. yazılır.

3.Həmin sözdən şaxələr ayrılır və yeni fikirlər yazılır (İbrahimov, Hüseynzadə, 2012).

Sonda onu qeyd edə bilərik ki, müasir dərslərdə fəal(interaktiv) təlim metodlarından istifadə həqiqətən də təlimin keyfiyyətinin yüksəlməsinə şərait yaradır, öyrənilən materialın uzun müddət yadda qalmasına kömək edir. Amma onu da qeyd etməliyik ki, bu metodlardan hər bir dərs zamanı istifadə etmək olmaz. Qarşıya qoyulmuş məqsəddən asılı olaraq müəllim istifadə edəcəyi təlim metodunu seçməli, düzgün və yerində işlətməyi bacarmalıdır.

**NƏTICƏ**

Ümumiyyətlə, deyilənlərdən belə bir nəticə çıxır ki, fəal(interaktiv) təlim zamanı şagirdlərin idrak bacarıqları, təfəkkürü, yaradıcılıq qabiliyyətləri, dünyagörüşü və s. inkişaf edir. İnteraktiv təlim metodları ilə qurulmuş dərslərdə şagirdlər müstəqil şəkildə təcrübələr aparır, problemləri həll etməyi bacarır, obyektlər arasında müqayisələr aparmaqla məlumatların daha düzgün mənimsənilməsinə nail olurlar. Belə olan halda da öyrənilən məlumatlar uzun müddət yaddaşda qalır.

Hal-hazırda müasir təlim texnologiyalarının öyrədilməsi üçün müxtəlif treninqlər, seminarlar və s. təşkil olunur ki, müəllimlərin bu seminar və treninqlərdə iştirakı çox vacibdir. Çünki, müəllimlər burada iştirak edərək İKT bacarıqlarını artırır, dərs zamanı kompüterdən istifadə bacarıqları formalaşır və belə olan halda da dərsi daha maraqlı keçir.

İnteraktiv təlimdə müəllimin "fasilitator" mövqeyindən çıxışı, şagirdlərin müstəqil düşünməsinə, tədqiqatçı və yaradıcı kimi yetişmələrinə zəmin yaradır ki, bu da hal-hazırda təlimin qarşısında duran aktual problemlərdən biridir.

**ƏDƏBIYYAT SIYAHISI**

2. Bədəlova Ə. Təlim-Tərbiyə. ADPU-nəşriyyatı. Bakı-2015. 291 səh.
3. İbrahimov F., Hüseynzadə R. Pedaqogika: 2 cilddə. I cild. – Bakı: Mütərcim, 2012, s.
4. Nəzərov A.M. Müasir təlim texnologiyaları. Dərs vəsaiti. ADPU-nəşriyyatı. Bakı-2012. 103 səh
5. Sadıqov F.B. Pedaqogika. - Bakı, Bakı Biznes Universitetinin nəşriyyatı, 2006, səh. 556.
6. Veysova Z. Fəal/intetaktiv təlim: müəllimlər üçün vəsait. Bakı. 2007

# TƏHSİLDƏ XEYRİYYƏÇİLİK MƏSƏLƏLƏRİNİN ÖYRƏNİLMƏSİİ

***Tural Mirzəzadə Müqabil oğlu***
turalmm99@gmail.com
**Bakı Slavyan Universiteti**

**Xülasə**

Elektron kitabxana sistemləri bütün məlumatları özündə saxlama qabiliyyətinə malikdir. Bu isə iştirakçılara bütün məlumatlardan istifadə etmək imkanı verir. Müasir dövrümüzün tədris prosesində elektron kitabxana sistemləri bütün iştirakçılar üçün əlçatan olan çox vacib və əlverişli rəqəmsal vasitələrindəndir. Elektron kitabxana sistemləri icazə verir ki, iştirakçılar rahatlıqla buraya daxil olaraq özlərinə lazım olan məlumatları öyrənə bilsinlər. Elektron kitabxana sistemlərinin bir çox müsbət tərəfləri vardır ki, bunların bəzilərinə nəzər yetirək: bu sistemdə yüzlərlə video dərslər, pdf və word fomatlar var. Bu da imkan verir ki, iştirakçılar onlara lazım olan zaman bu sistemə daxil olaraq özlərinə lazım olan məlumatları rahatlıqla əldə etsinlər. Bu sistem ilə iştirakçılar həm vaxtlarına qənaət etmiş olurlar, həm də öz biliklərini təkmilləşdirirlər. Bu deyilənlərə nəzər yetirsək biz əminliklə deyə bilərik ki, məkan və zamandan asılı olmayaraq istənilən məlumatı əldə etmək şansı çox rahatdır. İnternet resurslarından alınan məlumatların keyfiyyətini müqayisə etmək isə dəqiqliklə mümkün deyildir. Təhsilin iki formasını müqayisə etsək, onlardan hansının daha yaxşı və əlverişli olduğunu qeyd etmək mümkün deyildir. Bu seçim iştirakçının ixtisasından, onun öyrənmə və bilik səviyyəsindən, sonda tələb olunan nəticədən və digər amillərdən asılıdır.

Elektron kitabxana sisteminin təhsil müəssisələrinə gətirilməsi nəticəsində informasiya və kitabxana xidmətlərinin keyfiyyəti yüksəlmiş, effektivliyi, bütövlüyü və rahatlığı artmışdır. İndi isə elektron kitabxana sistemlərinin bəzi üstünlüklərinə nəzər yetirək: istənilən elektron vasitədən istənilən zaman istifadə etmək imkanı, iştirakçı tərəfindən elektron kitab kolleksiyası yarada bilmək imkanı, hər bir istifadəçi ünün aydın və asan olan oxuma sistemi, rahat iş görmə bacarığı və s. Müasir dövrümüzdə kolleclərin komputer vasitəsi ilə təmin edilməsi icazə verir ki, tələbələr elektron dərsliklərdən istifadə edə bilsin. Qeyri-müəyyənlik şəraitində özünü inkişaf bacarığı tələbəyə icazə verir ki, o indiki dövrdə ortaya çıxan həyat problemləri üçün öz təhsil məqsədini təyin etsin, onun həll yollarını seçə bilsin. Yaradıcı düşüncə bacarığı insanın yeni ideyalar yaratmaq potensialını və qabiliyyətini müəyyən edir, qarşıya çıxan problemləri həll etmək imkanı verir və ən əsası özünü inkişaf üçün yeni nələrsə yaratmaq qabiliyyətini inkişaf etdirir.

Müasir dövrümüzdə təhsil prosesində standart olan iş formaları bütün prosesdə ya yardımçı rolunda, ya da yetərsiz olurlar. Hazırda istər tələbələr, istər müəllimlər həm dərs zamanı, həm dərsdənkanar saatlarda hər kəs üçün rahat və əlçatan olan ünsiyyət vasitələri axtarırlar. Məlumatların və informasiyaların idarə edilməsi tələbədən lazım olan məlumat və informasiyaları tapmaq, onu təhlil etmək, dərk etmək və yadda saxlamağını istəyir. Bunları edərkən isə istifadəçi alınan informasiyadan səmərəli şəkildə istifadə edərək problemləri həll edə bilməlidir. Rəqəmsal mühitdə tənqidi düşüncə bacarığı tələbəyə icazə verir ki, O, məlumatları, onların etibarlılığını müəyyən etsin və məntiq ilə məlumatlar arasında nəticə çıxartsın.

Texnologiyaların rəqəmsal təhsilə müsbət təsirləri çoxdur. Bu təsirlər tələbələrə interaktiv təlim, daha əyləncəli öyrənmə mühiti, effektiv təhsil mühiti, məlumatlrın daha asan və sürətli əldə edilməsi aiddir. Bunlar tələbələrin daha yaxşı öyrənməsi, tədris prosesini tam anlamaq üçün əsaslar yaradır. Tələbələrə rəqəmsal təlim texnologiyalarını aşılamaq üçün 3D model yaratmaq, simuliyasiyalardan istifadə, tapşırıqların interaktiv formada həyata keçirilməsi, multimediadan istifadə etməklə tələbələrin öyrənməsini asanlaşdırmaq olar. Rəqəmsal texnologiyalar tələbələrə sənədləşmənin daha sürətli aparılmasına, qeydlərini sürətli aparmağa, onları asanlıqla bölüşməyə kömək edir. Rəqəmsal texnologiyaların bu cür inkişafı tələbələrə tədqiqatlarının daha effektiv aparılmasına, daha yaxşı nəticələr əldə etməsinə və onları asanlıqla paylaşmasına effektiv təsiri danılmazdır.

Dünya ölkələrində olduğu kimi Azərbaycanda da informasiya texnologiyaları dayanmadan inkişaf edir. Bu texnologiyaların inkişafı rəqəmsal təhsil mühitinin inkişafına əsaslı təsir göstərir. Azərbaycanda rəqəmsal təhsilə əsas diqqət hökumət tərəfindən aparılır. Bunlara məktəblərdə sinif otaqlarının komputerlər ilə təmin olunması, rəqəmsal təlim platformalarından istifadə edilməsi, şagirdlərin elektron vasitələrlə təmini aiddir. Dövlətin qarşıya qoyduğu əsas məqsədlərdən biri də təhsilin özəyini təşkil edən müəllimlər üçün öyrədici təlimlər və proqramlar təşkil etməkdir. Müəllimlərin bu cür inkişafı tələbələrin rəqəmsal dövrə hazırlanması və onların texnologiyalardan daha səmərəli istifadə etməsini onlara aşılamaqdır. Azərbaycan kollecləri hələ də informasiya texnologiyaları ilə tam təmin edilməmişdir. Kolleclərdə təhsil qurumları müxtəlif sahələrdə bacarıq və bilikləri əldə etmək imkanı təmin edir. Tələbələrin kolleclərdə təhsil alması onlara ən əsas praktik bacarıqları aşılayır. Tələbələr rəqəmsal təlim imkanları ilə tam da olmasa qismən təhsillərini davam etdirir. Tələbələrə praktik bacarıqların aşılanması onların iş həyatına müvəffəqiyyətli inteqrasiya etməsinə səbəb olur. Azərbaycan kolleclərində rəqəmsal təhsilin inkişafı ilə bağlı ciddi addımlar atılsa da hələ də tam nəticə əldə edilməmişdir. Kolleclər tələbələrə informasiya texnologiyaları ilə təmin olunmuş bir mühit istifadə edir. Bunlara interaktiv dərs materialları, rəqəmsal məktəb avadanlıqları, distant təhsil modelləri və platformaları aiddir. Azərbaycan kolleclərində rəqəmsal təhsilin keyfiyyəti məqbul səviyyədədir, amma bu prosesin daha da sürətləndirilməsinə və yaxşılaşdırılmasına ehtiyac var. Azərbaycanın bəzi kollecləri tələbələrə rəqəmsal texnologiyalar ilə təmin edir, lakin bəzi təhsil qurumlarının infrastrukturu və tədris resurslarının yaxşılaşması üçün daha çox iş görülməlidir. Təhsil qurumlarının qarşısında duran əsas məqsəd dünya standartlarına uyğun olan rəqəmsal təhsilin keyfiyyətini artırmaq üçün müvafiq tədbirlər və inkişaf planları hazırlamalıdırlar. Bundan əlavə kolleclər öz daxili büdcələri ilə rəqəmsal təhsilin keyfiyyətini artırmalı, rəqəmsal texnologiyalardan daha çox istifadə etməlidirlər.

Müasir dövrdə kolleclərin rəqəmsal təhsil mühiti mükəmməl və bütöv şəkildə təşkil olunmalıdır. Rəqəmsal təhsil mühiti bütün iştirakçılar üçün əlçatan olan bir ünsiyyət sahəsi, onları idarə etmək üçün çox effektiv bir vasitədir. Bu prosesin keyfiyyəti isə müəllim heyətinin işindən çox asılıdır. Daimi olaraq yenilənən və inkişaf edən rəqəmsallaşma təhsil prosesinə öz təsirini göstərir. Onlayn təlim vasitələri, bu vasitələrin bütün iştirakçılar üçün əlçatan olması, rəqəmsal təhsil avadanlıqları dayanmadan təhsil prosesinin effektivliyini və aktivliyini artırır. Müasir dövrdə kolleclərdə təhsil təşkilatları fəal şəkildə iştirak edir. Təhsil prosesində istifadə olunan onlayn tədris sistemini buna misal olaraq göstərə bilərik. Onlayn tədris sistemi kolleclərdə təhsil sistemini dəstəkləyir, bütün iştirakçılar üçün bərabər təhsil imkanı yaradır, ən əsası isə zərurət olduğu zaman məsafədən təhsil sisteminin mümkünlüyünü təmin edir. Bugünki dövrümüzdə elektron təhsil kursu fəaliyyət göstərir. Elektron təhsil kursu təhsilin bütün səviyyələrində təhsil prosesini dəstəkləmək üçün yaradılmış və hazırda davam etdirilməsi nəzərdə tutulan təhsil proqramıdır. Bu kurs təhsilin bir parçasıdır. Elektron təlim kursu şagirdlərin müstəqil və qarşılıqlı öyrənməsinə əsaslanır, müəllimin

rəhbərliyi altında həyata keçirilir. Elektron təlim kursları internet vasitəsi ilə əlçatan edilən və geniş həcmdəki mövzuları öyrətmək üçün hazırlanmış təhsil proqramlarıdır. Bu kurslar texnologiyaların inkişafı ilə birlikdə təhsilin daha çox rəqəmsal və interaktiv hala gəlməsi ilə populyarlıq qazanır. Rəqəmsal təlim kursları müxtəlif formatlarda gəlir, o cümlədən video dərslər interaktiv testlər, formlar və öz iş təcrübələrimizi tərtib edə biləcəyimiz məşğələlər kimi alətlər aiddir.

Bu kurslar, müəlliflər, müəllimlər və tədqiqatçılar tərəfindən hazırlanan məzmunlar hər bir istifadəçinin tələblərinə cavab verir. Elektron təlim kursları geniş ictimaiyyətə açıq olduğu üçün, istənilən vaxt, istənilən yerdə, istənilən tempdə öyrənmə imkanı yaradır və bu da iş və ya digər həyat tələbatları ilə uyğunluğu artırır. Bu kurslar, peşəkar inkşafı, şəxsi inkişaf, məlumat texnologiyaları, dillər, sənaye və peşəkar sahələr kimi müxtəlif sahələri əhatə edir. Habelə, bəzi kurslar pulsuzdur, bəziləri isə abunə üçün məzuniyyət tələb edir. Elektron təlim kursları, həm peşəkar həyatda qalanlar, həm də müəllim və tələbələr üçün ömürlük öyrənmə imkanları təmin edir.

**NƏTICƏ**

L.Floridinin konsepsiyasına görə insanlar özləri üçün yeni bir mühit yaradırlar -informasiya sahəsi və ya inosferlər. Rəqəmsal mühit kolleclərdə oflayn ünsiyyəti təşkil etməyə imkan verən inosferlərdən biridir. Tez-tez tələbələrin ehtiyac və maraqlarına cavab verən onlayn yeni bir insan növünün nümayəndələridilər, bu homo informatikuslardır.

Elmlərin inkişafının indiki mərhələsində, o cümlədən insan və cəmiyyət,istehsal texnologiyaları, mədəniyyət və təhsilin özü haqqında və davamlı təhsilin praktik yönümlü bir növünə keçid üçün təcili ehtiyac var. Rəqəmsal öyrənmə mühitində öyrənənlər təhsilli bir insanın şəxsi və sosial vəziyyətini təyin edən ən vacib keyfiyyətlərin çoxunu inkişaf etdirirlər. Tələbələr rəqəmsal mühiti tez-tez seçir və bu mühit ənənəvi mediadan daha rahat və əyləncəli hesab edilir.

Rəqəmsal mühitdə təlim materiallarının interaktivliyi sayəsində məlumatlar daha sürətlə əldə edilir ki, bu da akademik performansın artmasına səbəb olur. Lazımi materialları tapmaq və ya lazımi bilikləri əldə etmək mümkün olmadığı üçün bəzən biliyi müstəqil əldə etmək mümkün olmur. Bununla yanaşı mütəşəkkil bir rəqəmsal sistem olmadan bu biliklərin keyfiyyətini yoxlamaq mümkün deyil.

Dərsliklər müəllim və tələbələrin tədris prosesində istifadə etdikləri obyeklərdir. Dərsliklərin ən əsas məqsədi şagirdlərin öyrənmə prosesini sürətləndirməkdir. Dərslərə hazırlaşarkən müəllim aşağıdakılardan asılı olaraq dərslikləri diqqətlə seçir:

-dərsin məqsədi

-istifadə olunan tədris metadları

-tədris materialının məzmunu

-müəllimin üstünlükləri.

Dərsliklərdən istifadə prinsiplərinə riayət etmək vacibdir, prinsiplər bunlardır:

-aydınlıq və əlçatanlıq;

- ənənəvi və müasir tədris vəsaitlərinin harmonik istifadəsi;

- müəllim və tələbələrin birgə yaradıcılığı və əməkdaşlığı;

- şagirdlərin yaş və psixoloji xüsusiyyətlərini nəzərə alaraq dərsliklərdən istifadə edərkən təhlükəsizlik qaydalarının prioriteti.Müəllim həmişə tədris prosesini müşahidə etməli və həddindən artıq yükləmənin qarşısını almalıdır.

**ƏDƏBIYYAT SIYAHISI**


1. B. Sohrabi and H. Iraj, “Implementing flipped classroom using digital media: A comparison of two demographically different groups perceptions,” Computers in Human Behavior, vol. 60, pp. 514- 524, (2016).
2. C. Liwen, C. Tung-Liang and C. Nian-Shing, “Students' prespectives of using cooperative learning in a flipped statistics classroom.,” Australasian Journal of Educational Technology, vol. 31, no. 6, pp. 621-640, (2015)
3. D. R. Unger, D. L. Kulhavy, K. Busch-Petersen and I.-K. Hung, “Integrating Faculty Led Service-Learning Training to Quantify Height of Natual Resources from a Spacial Science Perspective,” International Journal of Higher Education, vol. 5, no. 3, pp. 104- 1
4. D. Wood and C. Bilsborow, “I Am Not a Person with a Creative Mind: Facilitating Creativity in the Undergraduate Curriculum through a Design-Based Research Approach,” Electronic Journal of e- Learning, vol. 12, no. 1, pp. 111-125, (2014).
5. 5. E. Masterman, “Bringing Open Education Practice to a Research-intensive University: Prospects and Challenges.,” Electronic Journal of e-Learning, vol. 14, no. 1, pp. 31-42, 2016.

# İBTİDAİ SİNİFLƏRDƏ HƏRƏKƏTƏ AİD MƏSƏLƏLƏRİN TƏSNİFATI

*Bakı Slavyan Universiteti*
*İbtidai sinifdə tədrisin metodika və metodologiyası*
***Zeynalova Leyla Ülvi qızı***
Zeynalovazeynalova4@gmail.com
Bakı, Azərbaycan.

**Xülasə**

Tədqiqat işinin əsas məqsədi ibtidai sinif şagirdlərinə hərəkətə aid məsələ həllinin öyrədilməsi metodikasına və onların fəaliyyətində müasir texnologiyaların istifadəsinə yönəlmişdir. Bu tədqiqat işinin əsas tələblərindən biri də praktikaya daha geniş yer verilməsidir. Şagirdlərin riyazi təfəkkürünün inkişafinda məsələnin rolu böyük əhəmiyyət kəsb edir. Hərəkətə aid məsələlərin öyrədilməsində əyanilik çox geniş imkanları ilə özünü göstərir. Məsələlərdə gedilən məsafəni bizə məlum olan düsturlardan istifadə edərək tapmaq mümkündür. Sadə məsələləri həll edərək məlum olur ki, məsafə sürətin zamana vurulması ilə tapılır. Zamanın tapılması üçün isə sürət düsturuna əsasən zaman düsturunu yaza bilərik. Müxtəlif tipli məsələləri həll etdikdən sonra bizə məlum olur ki, gedilən məsafəni sürətə bölməklə zamanı tapmaq mümkündür.

***Açar sözlər:*** sürət, şagird, hərəkət, məsələ, yol, zaman.

**Summary**

The main goal of the research work is focused on the methodology of teaching elementary school students to solve problems related to movement and the use of modern technologies in their activities. One of the main requirements of this research work is to give more space to practice. The role of the problem in the development of students' mathematical thinking is of great importance. Visualization has a wide range of possibilities in the teaching of movement issues. It is possible to find the distance covered in problems using the formulas known to us. Solving simple problems, it turns out that distance is found by multiplying speed by time. To find the time, we can write the time formula based on the speed formula. After solving different types of problems, we know that it is possible to find the time by dividing the distance traveled by the speed.

***Key words:*** speed, student, action, problem, way, time

**Аннотация**

Основная цель научно-исследовательской работы сосредоточена на методике обучения учащихся младших классов решению задач, связанных с движением и использованием современных технологий в их деятельности.Одно из главных требований к данной исследовательской работе – предоставить больше места для практики.Роль задачи в развитии математического мышления учащихся имеет большое значение. Визуализация имеет широкий спектр возможностей в преподавании вопросов движения.Найти пройденное расстояние в задачах можно по известным нам формулам.Решая простые задачи, оказывается, что расстояние находится путем умножения скорости на время.Чтобы найти время, мы можем написать формулу времени на основе формулы скорости.Решив задачи разного типа, мы знаем, что время можно найти, разделив пройденное расстояние на скорость.

***Ключевые слова:*** скорость, ученик, движение, дорога, время.

**Giriş**

Riyaziyyat insanın əqlinin və intellektinin inkişafinda əvəzedilməz rol oynayır.Hərəkətə aid məsələlərin həlli üçün uşaqların hərəkət haqqında təsəvvürlərinin

formalaşdırılması, sürət, məsafə və zaman kəmiyyətləri arasında əlaqənin açıqlanması, ilkin hazırlıq işlərinə daxildir.

Cisimlər eyni və ya əks istiqamətdə hərəkət edirlər. Bu zaman cisimlər ya bir -birinə əks istiqamətdə hərəkət edərək uzaqlaşırlar ya da ki, üz-üzə hərəkət edərək bir-birinə yaxınlaşırlar. Hərəkətə aid məsələlərdə məsafə çox zaman seqmentlə işarə olunur: gediş, görüş, gəliş yeri isə ya bayraq, ya da tire ilə göstərilir (sxem 1). Hərəkətin istiqamətini göstərmək üçün isə oxlardan istifadə olunur.




(sxem 1)

Şagirdlərə kəmiyyətlər arasında aslılığı mənimsətmək üçün sadə məsələlər və tapşırıqları həll etməklə yanaşı həmçinin ən sadə düsturlardan istifadə etməyi də öyrətmək lazımdır.

İlk dərs zamanı şagirdlərin fikrini cəlb etmək üçün həyat təcrübəsinə əsasən bəzi cisimlərin yavaş və ya bəzi cisimlərin sürətli hərəkət etdiyi ilə bağlı fikirləri yaratmaq lazmdır. Şagirdlərdə hərəkət haqqında təsəvvürləri yaratmaq üçün nəqliyyatın hərəkətini özləri müşahidə edə biləcəyi ekskursiya keçirmək və ya sinif daxilində sadə tapşırıqları oyun şəklində həll edərək müşahidə aparmaları dərsin keyfiyyətini artıracaq. Belə oyunlarda sinifdə dərs zamanı müəllim hər şagirdə bir dəqiqə vaxt verir. Hər şagirdin bir dəqiqə ərzində getdiyi məsafə sürət adlanır. Sürət ilə tanış olduqdan sonra şagirdlərlə elə bir praktik iş təşkil etmək lazımdır ki, onlar piyadanın və ya məsələdə verilən hər hansısa cismin sürətini özləri tapsın. Bu zaman müəllim şagirdlərə bildirməlidir ki, bir dəqiqəyə gedilən yol sürət adlanır. Bu tərifdən sonra şagirdlər artıq sürəti özləri müəyyən edə bilərlər. Sonda şagirdlər belə nəticəyə gəlib çıxmalıdır ki, hərəkətin sürəti - cismin vahid zaman ərzində qət etdiyi məsafəyə deyilir. Sadə məsələlər və tapşırıqlar həll etdikdən sonra bunun əsasına bir cismin sürətini tapmaq üçün cismin qət etdiyi məsafəni sərf etdiyi zamana bölərək sürəti tapılması öyrənilir. Sürət v hərfi ilə, vaxt t hərfi ilə, yol s hərfi ilə işarə edilir. Bu zaman sürətin düsturu: v=s:t kimi yazılır. Bizə məlum olan v=s:t düsturundan istifadə edərək s=vt düsturunu yaza bilirik. Məsələləri həll edərək müəyyən edirik ki, məsafə sürətin zamana vurulması ilə tapılır. Müxtəlif tipli hərəkətə aid məsələlərin həllinə əsasən isə bizə aydın olur ki, gedilən yolu sürətə bölərək sərf edilən zamanı tapmaq mümkündür : t=s:v

Müxtəlif məsələlərin həlli nəticəsində şagirdlərə məsafə, vaxt, sürət arasındakı aşağıdakı əlaqələr öyrədilməlidir:

- Məsafə (s) və zaman (t) məlum olarsa, sürəti v= s : t düsturu ilə tapmaq olar.
- Sürət (v) və zaman (t) məlumdursa, zamanı s=v · t düsturu ilə tapmaq olar.
- Məsafə (s) və sürət (v) məlumdursa, bu zaman hərəkətin zamanını tapmaq üçün t= s:v düsturu ilə tapmaq olar.

Əsasən məsələlərdə qarşı-qarşıya və ya əks istiqamətli hərəkətlər nəzərdən keçirilir. Birinci halda iki cisim bir-birinə doğru hərəkət edirsə, aralarındakı məsafə azalır. İkinci halda isə əgər iki cisim əks istiqamətdə hərəkət edirsə bu zaman aralarındakı məsafə artır.

Bəzən isə cisimlər eyni istiqamətdə, lakin fərqli sürətlərdə hərəkət edə bilərlər. Bu zaman cisimlər eyni saatda eyni nöqtədən çıxsalar belə sürətləri fərqli olduğu üçün bir saatdan sonra sürəti yüksək olan cisim öndə olacaq.

Məsələ. Avtomobil və motosiklet şəhəri eyni istiqamətdə tərk edir. Avtomobilin sürəti 100 km/saat, motosikletin sürəti isə 90 km/saatdır. Bir saat sonra onların arasındakı məsafə nə qədər olacaq?

Həll: Sürətlərin fərqini tapaq. Bunun üçün böyük sürətdən kiçik sürəti çıxırıq:

100km/saat – 90km/saat= 10km/saat

Avtomobil hər saat motosikletdən 10 kilometr uzaqlaşır.

Çay boyunca hərəkətə aid məsələyə baxaq. Qayıq, katet, gəmi və s. çay boyu müxtəlif sürətlərlə hərəkət edirlər. Onların sürəti ilə yanaşı çayın axını ilə və axına qarşı hərəkət sürətində də dəyişikliklər yaranır. Məsələn, çayın sürəti 5 km/saatdır. Əgər gəmi çayın axını ilə getsə, sürəti 5 km/saat artar. Gəmi çayın axınına qarşı istiqamətdə hərəkət etsə 5 km/saat az sürətlə hərəkət edəcək. Gəmi əgər durğun suda hərəkət edərsə, o zaman gəmi öz sürəti ilə gedəcək.

Məsələ. Gəminin sürəti durğun suda 30 km/saatdır. Çayın sürəti isə 10 km/saatdır. Gəmi çay boyunca və axına qarşı 5 saatda nə qədər yol qət edər?

Həll: Gəminin sürəti 30km\saatdır. Çay boyunca hərəkət sürətini tapaq:

30+10=40 (km/saat) olacaq. 5 saat ərzində isə 30 ·5= 150 (km)

Əgər gəmi çay axınına qarşı hərəkət edirsə onun sürəti 30-10=20 (km/saat) olacaq. 5 saat ərzində isə 5 dəfə çox məsafə qət edəcək 20·5=100 (km).

Məsələ. Günay velosipedlə A şəhərindən B şəhərinə 10 km/saat sürətlə, Aygün isə piyada 5 km/saat sürətlə B şəhərindən A şəhərinə yola düşdü (sxem 2). Şəhərlər arasındakı məsafə 150 kilometrdir. Günay və Aygün neçə saat sonra görüşəcəklər?

Həll: sxem çəkək:

**150km**



(sxem 2)

1O km/s 5km/s

Aygün və Günay bir-birinə doğru hərəkət edir. Onlar eyni zamanda bir – birlərinə yaxınlaşırlar. Onların yaxınlaşma sürəti 10+5=15 km/saatdır. Aygün və Günay görüşməzdən əvvəl 150 km yol getməlidirlər. Beləliklə, onlar 150: 15 = 10 saatdan sonra qarşılaşacaqlar.

Məsələ. 2 Maşın A nöqtəsindən əks istiqamətlə hərəkət edir (sxem 3). Birinci avtomobilin sürəti 100km/saat

Ikinci avtomobilin sürəti isə 80km/saatdır. 3 saat sonra bu avtomobillər bir-birlərinə nə qədər uzaqlaşacaq?

Həlli: sxem çəkək:

**S**



(sxem 3)

$V^1$ $V^2$

Birinci avtomobilin qət etdiyi məsafə $S=V^1 \cdot t^1 = 100 \cdot 3 = 300$ (km), ikinci avtomobilin qət etdiyi məsafə $S=V^2 \cdot t^1 = 80 \cdot 3 = 240$(km)-dir. Avtomobillər arasındakı məsafə $S = S^1 + S^2 = 300 + 240 = 540$(km)-dir.

Tədqiqat şagidlərin təlim prosesinin hansı formada həyata keçirilməsi, şagirdlərin motivasiya və maraqlarına nə dərəcədə uyğun olduğunu tədqiq edir. Burada istifadə olunan metod keyfiyyətin tədqiqi metodudur. Müşahidə və müsahibə aparmaqla məlumat toplanılır. İbtidai sinif müəllimlərinin apardığı bir çox müşahidə nəticəsində məlum olmuşdur ki, əsasən də riyaziyyat dərslərində mühazirə metodu şagirləri cəlb etmir, onlarda dərsə qarşı marağ oyatmır. Bu zaman dərsin keyfiyyəti aşağı düşür, şagirlər mövzunu anlamır. Müsahibə nəticələri göstərir ki, şagirlər daha çox praktiki və qeyri-standart dərslərə maraq göstərirlər. Buna görə də dərsin keyfiyyətinin və motivasiyasının yüksək olması üçün əsasən da riyaziyyat dərslərində yeniliyə və yaradıcı düşüncəyə daim ehtiyac duyulur. Hərəkətə aid məsələlərin həllinə hazırlıq zamanı müəllim şagirdlərin maraq dairəsinə uyğun müxtəlif videoçarxlardan, maketlərdən istifadə etməsi uşaqların dərsdəki fəaliyyətini yüksəldir və təlimin keyfiyyətini artırır.

**Nəticə**. İbtidai sinif riyaziyyatı məktəb riyaziyyatının ilk pilləsi hesab edilir. İbtidai sinifdə şagirdlərin yaradıcılıq fəaliyyətinin inkişafında hərəkətə aid məsələlərin həlli özünəməxsus yer tutur. Bu mövzü məqalələrdə kifayət qədər geniş təhlil olunur. Müəllimlər şagirdlərə sxemlərin qurulmasında və məsələ həlli zamanı yaranan çətinliklərdə məsləhətlər verərək onları doğru istiqamətdə yönləndirir. Şagirdlər hərəkətə aid çox sayda məsələlər həll etməklə müxtəlif növ sadə və mürəkkəb hərəkət məsələləri ilə tanış olurlar. Əsasən ibtidai siniflərdə hərəkətə aid məsələ həlli şagirdlərin yaradıcı və məntiqi qabiliyyətlərini inkişaf etdirərək onları üzə çıxarır. Hərəkətə aid məsələ həllində yeni texnologiyalardan istifadə edilməsi və qeyri-standart dərslərin qurulması mövzüya rəng qatır.

**Ədəbiyyat**

1. Perelman Y.İ. Canlı riyaziyyat. - M.: Maarifçilik, 1998.
2. Perelman Y.İ. Əyləncəli Hesab. - M.: Maarifçilik, 2000.
3. İbrahimov F. İbtidai məktəbdə riyaziyyat tədrisinin bəzi məsələləri. Bakı, 2006.
4. Novruzova X. İbtidai siniflərdə şagirdlərin fəza təsəvvürlərinin inkişaf etdirilməsində modelləşmə. konfrans materialları, SDU-2017
5. Ə.A.Quliyev. Riyaziyyatın tədrisində ümumiləşdirmə. Bakı "Nurlan"nəşriyyatı, 2009,
6. Elmi iş beynəlxalq jurnal.Cild:16. Sayı:4
7. Həmidov S. İbtidai məktəbdə riyaziyyatın tədrisi metodikası. Bakı: ADPU-2002

8. Məmmədova T. İbtidai sinif riyaziyyat dərslərində modelləşdirmə metodunun tətbiqinin inkişafetdirici funksiyaları. Müəllim hazırlama siyasəti və problemləri, 5-ci Beynəlxalq Simpoizium, 2015.

9. Qaralov Z. Riyaziyyat I-IV. Bakı, 2004.

10.Toptaş, V., Olkun, S., Çekirdekçi, S.,Sarı, M. H. (Edit.). (2020). İlkokulda Matematik Öğretimi (2 b.). Ankara: Vizetek.

11.Uğurel, I.,Bukova Güzel, E. (2010). Matematiksel Öğrenme Etkinlikleri Üzerine Bir Tartışma Ve Kavramsal Bir Çerçeve Önerisi, H. Ü. Eğitim Fakültesi Dergisi, 39 , 333-347.

12.Bondarenko, S.M. Uşaqlara müqaisə etməyi öyrət/ M.:Bilik,1981-96 s.

13.Riyaziyyat tədrisində şagirdlərin təhsili müəllimlər üçün kitab. İş təcrübəsindən/ komp. L.F. Pichugin- M.: Təhsil, 1987- 175 s.

# İNGİLİS DİLİNİN TƏDRİSİNDƏ YAZI VƏ OXU VƏRDİŞLƏRİNİN TƏTBİQİ ZAMANI ORTAYA ÇIXAN PROBLEMLƏR

**ƏLİYEVA NƏZRİN**
Bakı Slavyan Universiteti
İngilis dilinin tədrisi metodikası və metodologiyası
*eliyevanezrin515@gmail.com*
Bakı şəhəri, Azərbaycan

**Xülasə**

Müasir dövrdə bir neçə xarici dil bilmək insanlar üçün üstünlük hesab edilir. Təhsil və karyerasında uğur qazanmaq istəyən hər bir kəs özünü inkişaf etdirmək üçün dil öyrənməyə çalışır. Müxtəlif sahələrdə fəaliyyət göstərmək üçün xarici dillərə, xüsusilə də ingilis dilinə olan maraq gündən-günə artır. Bu halda ingilis dilini öyrənmək istəyənlərin sayı da çoxalır. İngilis dili dörd əsas bacarıq, yəni dinləmə, danışıq, oxu və yazıdan ibarətdir. Onların mənimsənilməsi üsulları və metodlarını tədris etmək də birbaşa müəllimdən asılıdır. Qeyd olunan problemlərin mövcudluğu tədqiqat işinin aktuallığını əhatə edir. Tədqiqat işinin məqsədi ingilis dilində tədrisində yazı və oxu bacarıqlarını öyrənib təcrübəyə tətbiq etmək və bu zaman yaranan bir sıra problemləri müəyyən etməkdir. Tədqiqatın elmi yeniliyi ondan ibarətdir ki, tədris zamanı oxu və yazı vərdişlərinin tətbiqi üsullarının araşdırılması və bu zaman ortaya çıxan maneələri təyin etmək kimi götürülür. Yazı və oxu vərdişlərinin tətbiqi zamanı meydana gələn problemlərin həlli üsulunu tapıb onları aradan qaldırmaq praktik əhəmiyyət daşıyır. Məktəblərdə və universitetlərdə yazı və oxu vərdişlərinin mənimsənilməsi, digər dil bacarıqları ilə əlaqələndirilməsi üçün həyata keçirilən texnika, üsul və yolların araşdırılması tədqiqatın üstünlüyü hesab oluna bilər. Tədqiqatın nəticəsində isə yazı və oxu vərdişlərinin həyata keçirilməsi zamanı problemlər və həlli yolları müəyyən ediləcək.

**Açar sözlər**: *dil bacarıqları, dərs prosesi, əlaqələndirmək, təcrübə, həll*

**Summary**

Nowadays, to know several foreign languages is considered an advantage for people. People who want to get success in their education and career strive to learn a language to improve themselves. The interest in foreign languages, especially English, increases day by day in order to work in various fields. In this case, the number of people who want to learn English increases. English language consists of four main skills namely listening, speaking, reading and writing. Teaching the methods and ways of their mastery depends directly on the teacher. The existence of the mentioned problems covers the relevance of the research work. The purpose of the research work is to learn and practice the writing and reading skills in English language teaching and to determine a number of problems that arise during this process. The scientific innovation of the research is that it is taken as an

investigation of the practice methods of reading and writing habits in teaching and to identify the obstacles that arise at this time. To find a way in order to solve the problems that arise during the application of writing and reading habits and to eliminate them is practical importance. Investigating the techniques, methods and ways in order to master writing and reading habits at schools and universities and connect them with other language skills can be considered an advantage of the research. As a result of the research, problems and solutions in the time of implementation of writing and reading competencies will be determined.

**Keywords:** *language skills, learning process, integrate, experience, solution*

**Giriş**

Dil insanlar arasında əsas ünsiyyət vasitəsidir. Onun vasitəsilə insanlar bir-birilə ünsiyyət saxlayır, öz fikirlərini, hiss-həyəcanlarını, arzu və istəklərini ifadə edirlər. Dil insanların birgə fəaliyyəti prosesində əmələ gəlmişdir. O, cəmiyyətin varlığı, onun təşəkkülü və inkişafı üçün çox zəruri olan bir vasitədir.

Yazı və oxu bacarıqlarının inkişafı dil təlimi və tədrisinin əsas hissəsini təşkil edir. J.Harmer, P.Urr, J.C.Richards,C.Lethaby, J.Hadfield və başqa məşhur metodistlərin əsərlərində müxtəlif bilik, bacarıq və vərdişlərin inkişaf etdirilməsi, şagird və tələbələrə aşılanması barədə fikirlər qeyd olunmuşdur. Həmçinin müxtəlif metod, nəzəriyyə və yanaşmalar,eyni zamanda resurs və vasitələr haqqında da məlumatlar öz əksini tapmışdır. Lakin qeyd etmək olar ki, yazı və oxu bacarıqlarının tərəqqisi üçün araşdırmalar davam etdirilməli, özəlliklə orta məktəblər, liseylər və tədris mərkəzlərində öyrənənləri tədrisə həvəsləndirmək üçün doğru metodların seçilməsi barədə fikirlər tədqiq olunmalıdır. Yazı və oxunun məzmunu, növləri, bu bacarıqların aşılanması və inkişaf etdirilməsi üçün dərs zamanı müxtəlif interaktiv üsul və fəaliyyətlərdən istifadə olunması, yazı və oxu bacarıqları haqqında yanaşma, metodlar barədə məlumatlar, həmçinin dil bacarıqlarının qarşılıqlı əlaqəsi, yazı və oxu qabiliyyətlərinin ingilis dilinin tədrisində sinifdə tətbiqi zamanı yaranan problemlər və onların həlli üsulları dərindən araşdırılmalıdır. Tədqiqat işinin məqsədi ingilis dilində tədrisində yazı və oxu bacarıqlarını öyrənib təcrübəyə tətbiq etmək və bu zaman yaranan bir sıra problemləri müəyyən etməkdir. Tədqiqatın elmi yeniliyi ondan ibarətdir ki, tədris zamanı oxu və yazı vərdişlərinin tətbiqi üsullarının araşdırılması və bu zaman ortaya çıxan maneələri təyin etmək kimi götürülür.

1. Tədris müəssisələrində yazı və oxu materiallarının düzgün seçilməməsi, öyrənənlərin yaş və dil səviyyəsinin nəzərə alınmaması, yazı və oxunun inkişafı üçün interaktiv fəaliyyətlərin yerinə yetirilməməsi və şagirdlərin yetəri qədər dəstəklənməməsi tədqiqat işinin aktuallığını təşkil edir və əhəmiyyətli olduğunu sübut edir.
2. Şagird və tələbələrə individual olaraq yanaşılmaması, öyrənənlərin dili qısa müddətdə öyrənib yazı və oxu, eyni zamanda digər dil bacarıqlarının inkişafına "ötəri" baxması, dilin struktur cəhətdən deyil də, sadəcə zövq üçün öyrənilməsi tədqiqat işinin araşdırılmasına olan ehtiyac və hal-hazırda mövcud olan problemlərdir.
3. Tədqiqat işi "ingilis dilinin tədrisində yazı və oxu vərdişlərinin tətbiqi zamanı ortaya çıxan problemlər" mövzusudur.
4. Tədqiqat iki fəsildən ibarətdir; birinci fəsil "ingilis dilinin tədrisi zamanı yazı vərdişinin tətbiqi və yaranan problemlər, onların aradan qaldırılması üsulları", ikinci fəsil isə "ingilis dilinin tədrisi zamanı oxu bacarığının tətbiqi və meydana gələn maneələr, onların həlli yolları" adlanır.

**Tədqiqat metodu**

Tədqiqat işində müşahidə, təhlil, araşdırma metodlarından istifadə olunmuşdur. Təcrübəyə əsasən belə bir fikirlə çıxış etmək mümkündür ki, yazı və oxu vərdişlərinin tətbiqi zamanı öyrənənlər tərəfindən edilən yanlışlıqlar göstərilməli, onları doğru istiqamətləndirmək üçün geri dönüşlər edilməlidir.

**İngilis dilinin tədrisi zamanı yazı vərdişinin tətbiqi və yaranan problemlər, onların aradan qaldırılması üsulları**

Xarici dil öyrənmək dinləmə bacarıqlarını və yaddaşı artırır. İnsan başqa bir dil bilir və ondan istifadə edirsə, çoxmədəniyyətli dünyada daha effektiv və məsuliyyətli iştirak edir. Başqa dil öyrənmək insana səmərəli, yaradıcı ünsiyyət qurmaq və həqiqi mədəniyyətin dili ilə real həyat vəziyyətlərində iştirak etmək imkanı verir. Dil insanın öz dili və mədəniyyətini daha yaxşı başa

düşməsini təmin edir, dünyagörüşünü artırır, mədəniyyətlər arasındakı əlaqələri görmək qabiliyyətini təmin edir. Xüsusən də, ingilis dilinə qarşı maraq və tələbatın artdığını müşahidə etmək olar, çünki bu dil beynəlxalq və universal dillərdən hesab olunur. İngilis dilini bilmək nəticəsində insanlar uğurun açarını əldə edirlər, belə ki, xarici ölkələrdə yaşamaq və səyahət, beynəlxalq vebinar, seminar və konfranslarda iştirak, prestijli yerlərdə çalışan, o cümlədən məktəbdə işləyən zaman ingilis dili vasitəsilə bir çox insan dil istifadəsində bir-birilə kommunikasiya yaradır, bir-birini anlaya bilir.

Qeyd etmək olar ki, xarici dili öyrənmə və tətbiqetmə prosesi uzunmüddətli və davamlıdır. "Psixoloqlar bildirib ki, uşaq xarici dili nə qədər tez öyrənməyə başlasa, bir o qədər yaxşıdır: "Belə ki, 5-6 yaşa kimi uşaqların nitqi, danışıq qabiliyyəti sürətlə inkişaf edir və bu dövr dil öyrənmək üçün sensitiv dövr, yəni optimal öyrənmə dövrü hesab olunur. Bu yaşlarda uşaq dil öyrənmək üçün xüsusi səy göstərmir." [1]. Bu səbəbdən də orta ümumtəhsil məktəbləri və ali məktəblərdə ingilis dilinin tədrisi həyata keçirilir. Bu fikri də bildirmək mümkündür ki, xarici dil dərslərini tədris etmək və şagirdlərin, tələbələrin biliyini qiymətləndirmək üçün dörd əsas , təməl bacarıqlar, yəni, dinləmə və anlama, danışıq, oxu və yazı bacarıqları çox vacibdir. Onların mənimsənilməsi üsulları və metodlarını tədris etmək də birbaşa müəllimdən asılıdır.

Yazı bacarıqlarının öyrədilməsi xarici dilin tədrisində akademik önəm daşıyır. Bunun səbəbi ondan ibarətdir ki, müəllimlər yazı bacarıqlarını tədris edərkən düzgün orfoqrafik və qrammatik qaydaların üzərində fokuslanırlar. Əlavə olaraq, onu da nəzərə çatdırmaq lazımdır ki, tələbə və şagirdlər müxtəlif yazı işlərini yerinə yetirərkən yaradıcı düşünmə qabiliyyətinə də malik olmalıdırlar. "Yazı bacarığı şagirdlərin inkişafına kömək edir. Necə? İlk olaraq, yazı biz - müəllimlərin təhsilalanlara öyrətdiyimiz qrammatik strukturları, idiomları və lüğəti möhkəmləndirir. İkinci olaraq, şagirdlər və tələbələr yazı yazanda , artıq nəyi öyrəndiklərini bilirlər və inkişaf etmək üçün risk almaq şansları olur. Üçüncü olaraq, yazı zamanı onlar yeni dilin öyrənilməsi ilə məşğul olurlar. Fikirlərin ifadəsi üçün cəhd göstərmək və göz, əl və beynin daimi istifadəsi bacarıqları inkişaf etdirmək üçün əlverişli üsuldur." (Raimes, 1938). Yuxarıda qeyd edilənlərdən belə məlum olur ki, A.Raimes öz əsərində yazı bacarığının inkişafı üçün bir sıra səbəbləri araşdırıb tədqiq etmiş və dolayı yolla onun önəmini açıqlamışdır.

Yazı insanların fikirlərini, düşüncələrini və münasibətlərini ifadə etmək üçün çox mühüm bacarıqdır, belə ki müasir dövrdə demək olar ki, hər kəs bir-birinə müəyyən səbəblərdən ötrü e-mail, qeydlər, məktəblər, məruzələr yazıb göndərirlər. Nəticədə yazı yazarkən oxucuların xüsusiyyətlərini nəzərə almaq lazımdır. Yazının iki fərqli forması var: formal (rəsmi) və informal (qeyri-rəsmi). Standart ingilis dilinin istifadəsi, elmi cümlə strukturları, şəxs əvəzliklərinin müəyyən sayda istifadəsi, jarqon və məişət sözlərinin olmaması formal yazının xüsusiyyətləridir. Qeyri-standart ingilis dilinin işlədilməsi, hər kəs tərəfindən işlədilən ümumi məişət sözləri və qısa cümlələr informal yazı hesab edilir.

Sinifdə yazı bacarıqlarının öyrədilməsi və tətbiq olunması vacib nüanslardan biridir və öyrənənlər yazının müxtəlif formalarından istifadə edərkən özlərini ifadə etmək və yaradıcılıq bacarıqlarını inkişaf etdirməyi öyrənmiş olurlar. Eyni zamanda şagirdlər e-mail məktubları, xülasələr, qısa hekayələr, slaydlar, yaradıcı esselər və digər tapşırıqları yerinə yetirərkən yazı vərdişindən istifadə etməyi öyrənirlər. Xarici dilin tədrisi zamanı sinifdə yazı bacarığını tətbiq edərkən müəllimləri öyrətməyə təşviq edən bir sıra səbəblər var. Təcrübələrə əsasən qeyd etmək olar ki, yazı tapşırıqlarını yerinə yetirərkən öyrənənlər düzgün cümlə quruluşu və söz sırası ilə yaxından tanış olurlar. Uyğun yazı resurs və materialları sayəsində onlar cümlə qurmaq, sözlərin düzgün orfoqrafik yazı qaydaları, cümlədə durğu işarələri və fasilənin verilməsi, kontekstə uyğun müvafiq sözlərin cümlədə işlədilməsi barədə ətraflı məlumat əldə edirlər.

"İngilis dili dünyada müxtəlif mədəniyyətlərə, etnik və sosial mənşəyə malik insanlar arasında "lingua franca" kimi istifadə olunur." (Dewi, 2015) Yazı bacarığının effektiv şəkildə orta məktəblərdə tətbiqi ingilis dili müəllimləri üçün ən vacib nüans hesab olunur. Bütün bunlara baxmayaraq, yazını öyrətmək, şagirdlərin yazı bacarıqlarını öyrənərkən qarşılaşdığı çətinliklər səbəbindən hər zaman müəllimlər üçün çətinlik törətmişdir. "Yaranan çətinliklər nəticəsində həm də müxtəlif dil səviyyəsinə malik şagirdlərlə işləmək, tələbələri ruhlandırmaq, çətin materialları mənimsətmək və düzgün vaxt bölgüsünü təşkil etmək yenə də müəllimin əsas vəzifəsi və məsuliyyəti hesab olunur. Şagirdlərin yazı bacarığını inkişaf etdirmək üçün müəllim onları təlimatlandırmaq və rəy vermək kimi önəmli aspektlərə daha çox diqqət yetirməlidir."[5] Beləliklə, müəllim fasilitator olaraq öyrənənlərdə yazı

bacarığını inkişaf etdirmək və çətinliklərin qarşısını almaq məqsədilə maneələrdən xəbərdar olmalıdır. Yazı bacarığının tətbiqi zamanı yaranan çətinlikləri qeyd etmək mümkündür:

1. *Söz seçimi problemləri*

Norişə (1983) görə, düzgün yazı qabiliyyətinə malik öyrənənlərin söz bazası geniş olmalı, düzgün sintaksis və müxtəlif cümlə quruluşlarını bilməlidir. Öyrənən yazının məqsədinə əsasən uyğun terminologiyadan və anlaşılmayan sözlərdən istifadə etdiyi zaman onun ərsəyə gətirdiyi materialı oxucu anlamaya bilər və təbii ki, bu normal bir haldır. Belə ki, ikinci dil öyrənənləri oxucunun diqqətini cəlb etmək üçün yazıda tez-tez uzun söz və frazalardan istifadə etdikləri zaman söz seçimində hələ də problemlərlə qarşılaşırlar.

2. *Orfoqrafik səhvlər*

Gover (1995) belə hesab edir ki, başqa dillərin təsiri, sözlərin müxtəlif tələffüzü və digər tarixi faktlar ingilis dilinin orfoqrafik sistemini öyrənənlər üçün daha mürəkkəb edir.

3. *Böyük hərflərlə əlaqədar problemlər*

"Krolun(1991) fikrincə, böyük hərflər cümlələrin, açar sözlərin, başlıqların əvvəlində istifadə olunur." (ELbashir B,2023). Tələbələrin yazıda böyük hərf ilə əlaqəli problemləri ondan qaynaqlanır ki, universal böyük hərf qaydaları yoxdur və xüsusi və ümumi isimləri fərqləndirmək öyrənənlər üçün ən çətin məsələlərdən biridir.

4. *Qrammatik problemlər*

Yazı tapşırıqlarını yerinə yetirərkən, ikinci dil öyrənənləri bir çox qrammatik maneələrlə üzləşirlər. "Tayner (1987) və Karmanın (1987) fikrincə, ikinci dil öyrənənləri daha çox zaman formaları, mübtəda-xəbər uzlaşması, əvəzliyin istifadə məqamları və bitişdirici sözlərlə bağlı problemlərinin olmasına meyillidirlər." (ELbashir B,2023).

5. *Məzmun problemləri*

Hədəf dildə başqaları ilə ünsiyyət qurmağı öyrənmək ikinci dil öyrənənləri üçün əngəl törədə bilir. "Clifford (1987) qeyd edir ki, müəllim qrammatika, orfoqrafiya və durğu işarələrinə fikir verməyi vurğulamaqdan daha çox məzmuna və əldə olunan məlumatlara fokuslanmağa dair məsələdə şagirdlərə kömək etməlidir." (ELbashir B,2023).

Eyni zamanda şagirdlərin yazı problemlərinin qaynaqlandığı bəzi faktorlar aşkar olunub ki, onlardan biri də kifayət qədər vaxtın verilməməsi hesab olunur. Belə ki, düzgün yazı bacarıqlarını həyata keçirmək üçün kifayət qədər vaxt tələb olunur. Şagirdlərin öz fikirlərini nizamlamaq, yazı mətnini tərtib etmək, yanlışları redaktə etmək, müxtəlif yazı tapşırıqlarını yerinə yetirmək üçün vaxta ehtiyacları olur. Problemləri yaradan digər bir faktor isə kifayət qədər motivasiyanın olmamasıdır. Bəzi tədqiqatçılar düşünür ki, şagirdlərin maraqlanmadığı mövzularla bağlı yazı yazmaq tələb olunduqda onlar çox zaman bu tapşırıqlara həvəssiz yanaşırlar. Motivasiya müxtəlif akademik səviyyəyə və bütün yaş qruplarına malik öyrənənlər üçün önəmli aspekt sayılır. "Davies (1998) düşünür ki, tələbələr onları maraqlandıran mövzular üzrə yazı yazmaq üçün ruhlandırılmalıdırlar." (ELbashir B,2023). Həmçinin, belə bir fikir söyləmək də mümkündür ki, müəllimin rəyi də çox mühüm faktor hesab olunur. Bir çox alimlərin fikrincə konstruktiv, yəni pozitiv rəy öyrənənlərin yazı qabiliyyətini inkişaf etdirir. Müəllim yazının çatışmazlıqlarından daha çox onun şagirdə verdiyi faydalar üzərində fokuslanmalıdır. Nəticədə, öyrənən müəllimin verdiyi rəyi yenidən yazı yazdığı zaman effektiv formada tətbiq edə bilir. Şagirdlərə verilən müsbət rəy və yanlışlıqların kobud formada deyil də, dəstəkləyici və öyrədici şəkildə izahı onları dərsə həvəslə yanaşmaq üçün ruhlandırır.

Yuxarıda qeyd olunan problemlərin həlli yollarını həyata keçirməklə onların qarşısını almaq mümkündür:

1. Yazı prosesi zamanı müəllimlər istiqamətlər təklif etməlidirlər.
2. Tələbələr tez-tez bədii kitablar oxumalı, mütaliə etməlidirlər. Daha çox qiraətlə məşğul olan öyrənənlər daha yaxşı lüğət, qrammatik bacarıqlar və dünyagörüşünə malik olurlar.
3. Müəllimlər sinifdə müntəzəm olaraq şagirdlərlə müxtəlif yazı tapşırıqları və fəaliyyətlərini icra etməyi , yazı qabiliyyətini inkişaf etdirən oyunlar oynamağı planlaşdırmalıdır.
4. Yazı bacarığı praktiki şəkildə öyrənilən bir qabiliyyətdir, o halda öyrənənlər daima yazı yazmağı nəzəri əsaslarla deyil, təcrübi formada həyata keçirməlidirlər.

**İngilis dilinin tədrisi zamanı oxu bacarığının tətbiqi və meydana gələn maneələr, onların həlli yolları**

Elm və texnikanın sürətli inkişafı nəticəsində kütləvi informasiya vasitələrinin yayılması, ölkələr arasında ticarət əlaqələrinin yüksəldilməsi insanların başqa dövlətlər tərəfindən istifadə olunan xarici dilləri öyrənmələrinə səbəb olmuşdur. Hal-hazırda, bir neçə dili bilmək akademik və ya peşə həyatında ən mühüm məsələlərdən biridir. Ana dili və xarici dillərin tədrisi əsrlər boyu müxtəlif təhsil müəssisələrində və mühitlərdə həyata keçirilmişdir. İnsanların ana dilini bilmələri ilə yanaşı, bir və ya bir neçə xarici dili öyrənmək yalnız müasir texnologiya dövrünün tələbi deyil, çox qədim tarixə əsaslanan bir mövzudur. Belə olan halda xarici dilləri, özəlliklə də ingilis dilini inkişaf etdirmək istəyənlərin sayı artır. Oxu bacarığı ən çox önəm verilməli olan bacarıqlardan və əsas məzmun xətlərindən biridir. Oxu bacarığı dinləmə, danışma və yazı bacarıqlarına da təsir edir. Bu qabiliyyətin iki növü var: ekstensiv və intensiv oxu. Şagirdlər ümumi anlayış üçün uzun bir mətnə daha az vaxt sərf edərkən ekstensiv oxu növündən istifadə edirlər. İntensiv oxu isə materialın diqqətlə və detallı şəkildə araşdırılması hesab olunur.

Öyrənənləri bütün dil bacarıqları, həm də oxu bacarığını təkmilləşdirməyə həvəsləndirmək üçün bir sıra üsul və strategiyalar var. Dünyanın hər yerində xarici dil dərslərində şagirdlər həm dərslik, həm də bədii kitabları yüksək səslə oxuyurlar. Yüksək səslə oxuma, həqiqətən də, faydalıdır. Belə olan halda onlar səslər və hərflər arasında əlaqə yaradır, eyni zamanda nəyi oxuduqlarını eşidir, yeni bilik qazandıqca etdikləri yanlışları düzəldib uğurlu nəticəyə sahib ola bilirlər. İnsan nə qədər çox oxusa, bir o qədər də çox məlumat əldə edəcək. Oxumaq məlumatı mənimsəmək və istədiyini öyrənmək üçün bir vasitədir.

Oxu bacarığının tərəqqisi üçün dil öyrənənlərin lüğət üzərində çalışıb yeni sözləri tətbiq etmələri vacib amil hesab olunur. Mətni oxumadan öncə müəllim yeni sözlərin mənasını izah edərsə, mətnə uyğun düzgün sözlər seçib cümlədə işlədərsə şagirdlərin yeni söz, fraza öyrənməklərinə yardımçı ola bilər. Oxu vərdişinin effektiv formada aşılanması bir sözün müxtəlif mənalarının kontekstə uyğun işlədilməsi üzərində fokuslanır.

Oxu bacarıqlarının tətbiq olunması zamanı əlbəttə ki, öyrənənlər əngəllərlə üzləşirlər. Onlardan biri *materialı sakit formada* oxumaqdır. "Səssizcə oxumaq dedikdə, baş və dodaqların hərəkəti olmadan, pıçıltısız, gözlərin hərəkəti ilə həzz alaraq materialı oxumaq və anlamaq, eyni zamanda çətinlik səviyyəsinə uyğun olan sürətlə oxumağa alışmaq nəzərdə tutulur." (Prihatin, 2020). Sakit oxu zamanı öyrənənlər yalnız göz və beyinin hərəkətini ehtiva edən göz yaddaşından istifadə edirlər. Lakin bu texnika həm oxucunun özünə, həm də digər öyrənən və dinləyən şagirdlərə qıcıq yarada və ziyan verə bilər. Belə ki, öyrənən oxu tapşırıqlarını ucadan oxuduqları zaman səslərin tələffüzünü eşidə bilir və bu, əlbəttə, danışığa da öz təsirini göstərir. Əlavə olaraq, oxucu nəyi oxuduğunu anlayır, həmçinin dinləyicilər də onun nitqini aydın şəkildə anlayıb öz aralarında müzakirə edir, debat yaranır və nəticədə yeni informasiya əldə edib dünyagörüşlərini genişləndirirlər.

Oxu bacarıqlarının inkişafı üçün dərs prosesində yaranan digər bir manea hər hansısa bir mətndə *izlənilən yeri itirməkdir*. Belə ki, bu iki halda baş verə bilər: şagird cümləni oxuyarkən hansı sözün üzərində olduğunu və sətirdən sətrə keçid edərkən hansı cümləni oxuduğunu itirə bilər. Nəticə olaraq, tələbə vaxt itkisi yaşayır və oxuduğu materialı anlamaqda çətinlik çəkir.

Yaranan problemlərdən biri də *oxunulanları unutmaqdır.* Material oxunulan vaxt faktları unutmaq oxunulanları xatırlamamaq anlamına gəlmir. Bu halda şagird və ya tələbə əsas fikirləri xatırlayıb yadda saxlamalıdır. Mətnin sonuna gəldikdə isə hələ də söhbətin nədən getdiyini bilmirsə, xatırlamaq qabiliyyətini inkişaf etdirməlidir. Bunun üçün çox mütaliə etməlidir, eyni zamanda dərs prosesində yaddaş oyunlarını tətbiq etməklə müəllim də bu problemin qarşısını almaq üçün yardımçı ola bilər.

Oxu bacarıqlarının tərəqqisi zamanı üzə çıxan problemlərin qarşısını almaq üçün bir neçə yol və üsul tətbiq oluna bilər:

1. *Fasilə vermək*

Unutmamaq lazımdır ki, yaddaş yorğunluğu bir çox fiziki problemlərə gətirib çıxara bilər. İstirahət etmək nəticəsində beyin daha yaxşı fəaliyyət göstərir və öyrənən uğur əldə edə bilir.

2. *Ucadan oxumaq*

Tövsiyə olunur ki, şagirdlərin material və resursları ucadan oxuması daha məqsədəuyğundur. Bu sayədə onlar nə dediklərini eşidir, danışıq zamanı doğru tələffüz formalaşır, oxunulan materialı anlayır və xatırlaya bilirlər.

*3. Qeydlər aparmaq*

Əgər öyrənən həm də yazı tapşırıqlarını yerinə yetirirsə oxu zamanı qeydlər aparması vacibdir. Bu, vacib detalları xatırlamağa kömək edir, şagirdlərin fikrini yayındırmaqdan qoruyur və mətnin əsas mövzusunu anlamağa yol göstərir. Bundan əlavə, aparılan qeydlər ehtiyac olan vaxtda mətnə geri dönüb faktları yenidən nəzərdən keçirməyə yardımçı olur.

**Nəticə**

Aydındır ki, nəinki ingilis dili, həmçinin xarici dillərin tədrisi zamanı yazı, oxu vərdişləri həm də danışıq və dinləmə bacarıqları ilə qarşılıqlı əlaqədə olaraq inkişaf edirlər. Tədqiqat işində qeyd olunduğu kimi, onların tətbiqinin bir çox fərqli texnikaları var. Təbiidir ki, bacarıqların inkişafı üçün hər bir yolun həyata keçirildiyi vaxtda bir sıra problemlər ortaya çıxır. Orta ümumtəhsil müəssisələrində, ali məktəblərdə müəllimlər hazırda bu problemlərin qarşısını almaq üçün çalışırlar.

Müasir dövrdə yeni yanaşmalar və metodların tətbiqi və problemlərin aradan qaldırılması barədə biliklər ingilis dili müəllimlərinə dərs prosesini effektiv şəkildə təşkil etməyə kömək edəcək. Peşəkar inkişaf üçün onlar fasilitator və rəhbər olaraq şagird və tələbələrə individual yanaşmanı təmin edəcək, oxu və yazının növlərini təhlil etmək, oxu və yazı vərdişləri ilə bağlı nəzəri və praktiki materialları araşdırmaq, ingilis dilinin tədrisi zamanı formalaşması lazım olan bacarıqlar haqqında məlumat vermək, dərs müddətində yazı və oxu bacarıqlarının inkişafı zamanı istifadə olunacaq metod,üsul və vasitələri, həmçinin dərsin interaktiv şəkildə təşkil olunması yollarını aşkara çıxarmaq barədə məsələlərlə daha dərindən maraqlanacaqlar.

**Ədəbiyyat siyahısı**

1.https://report.az/elm-ve-tehsil-xeberleri/usaqlara-xarici-dilleri-nece-yasindan-oyretmek-lazimdir-mutexessi-s-reyi/

2. A, Raimes. (1938). Techniques in teaching writing. Oxford University Press, p.164

3. ELbashir B. (2023) Writing Skills Problems: Causes and Solutions, International Journal of English Language Teaching, Vol.11, No.5, pp.52-64

4. Y. Prihatin. (2020). Reading Skills Problems and Their Solutions-- Palarch's Journal Of Archaeology Of Egypt/Egyptology 17(8), 731-742.

5. https://www.scirp.org/journal/paperinformation?paperid=97129

6. Dewi, A. (2015). Perception of English: A Study of Staff and Students at Universities in Yogyakarta, Indonesia. Cambridge: Cambridge Scholars Publishing.

7. https://www.ldonline.org/ld-topics/college-college-prep/reading-difficulties-and-solutions-passage-based-reading-sat

# THE EFFICIENCY OF WATCHING MOVIES IN LANGUAGE LEARNING PROCESS

**ILYAS MƏMMƏDOV**
Bakı Mühəndislik Universiteti
Pedaqoji
*İlyasmammadov@yahoo.com*
BAKI, AZƏRBAYCAN

**ABSTRACT**

The 21st century has brought the world closer together than ever before. Globalization has led to increased interconnectedness between countries, cultures, and economies. This has made language learning more important than ever before. In order to succeed in today's world, it is essential to be able to communicate effectively with people from different backgrounds.

There are many benefits to learning another language. On a personal level, it can open up new opportunities for travel, work, and education. It can also help you to connect with people from different cultures and backgrounds. On a professional level, language skills can make you more competitive in the job market. They can also help you to build relationships with clients and colleagues from around the world.

There are many different ways to learn a language. Some people prefer to take classes, while others prefer to learn on their own. There are also many resources available online and in libraries. The most important thing is to find a method that works for you and to stick with it.

If you are considering learning a new language, there are many factors to consider. First, you need to decide which language you want to learn. There are many factors to consider when making this decision, such as your personal interests, career goals, and the languages that are spoken in the countries you want to visit. Once you have decided which language you want to learn, you need to find a method that works for you. There are many different resources available, so you should be able to find something that fits your needs and learning style.

Learning a new language can be a challenging but rewarding experience. It can open up new doors to opportunities and help you to connect with people from all over the world. If you are considering learning a new language, I encourage you to give it a try. You may be surprised at how much you enjoy it and how much it can benefit you.

Here are some additional benefits of learning another language

Improved cognitive function: Studies have shown that learning a new language can improve cognitive function, including memory, attention, and problem-solving skills.

Increased brain plasticity: The brain is more plastic when we are young, but it continues to be plastic throughout our lives. Learning a new language can help to keep the brain healthy and improve its ability to learn new things.

Tədqiqat işinin məqsədi tərcümeyi-hal materiallarının tədrisi zamanı baş verən çatışmazlıqları araşdırmaq və hansı variantların daha sərfəli olduğunu araşdırmaqdır. Dərslərdə tərcümeyi-halı materialları təqdim edilərkən yuxarı sinif dərsliklərində məlumat aydın və müfəssəl formatda verilir. Bir saat vaxt verilir. Aşağı siniflərdə tərcümeyi-hal materiallarının tədrisinə əlavə vaxt ayrılmır. Müəllimlər onların əsərlərindən ümumi nəticələr çıxararaq onların həyat və yaradıcılığını şagirdlərdə təsəvvür etmək imkanı yaradır, bununla da yazıçı və onların mənəvi dünyası haqqında təsəvvür yaradırlar. 7-ci sinifdə tərcümeyi-hal materialların tədrisi dərsində həm yazıçının sitatları, həm də onlar haqqında fikirləri imkan yaradır. Səməd Vurğun, Eyvaz Zeynallı, Hikmət Ziya, Çingiz Aytmatov, Mikayıl Müşfiq, Əliağa Kürçaylı kimi görkəmli ədəbiyyat xadimlərimizin tərcümeyi-halı materialları haqqında qiymətli və dəyərli fikirlər dərslikdə öz əksini tapmışdır. Şagirdlər görkəmli və qüdrətli sənətkarların yaradıcı ideyaları və düşüncələri ilə tanış olurlar. Təlim texnologiyalarından istifadə müəllimin dərsini şagirdlər üçün maraqlı edir, onların yaddaşında tərcümeyi-halı və bədii əsərlər haqqında silinməz izlər buraxır. Bu müəlliflərin və onların əsərlərinin öyrənilməsi və tanınması tələbələrin mənəvi inkişafına təsirsiz ötüşmür. Diqqətli oxucu ədəbi əsərlərdən çox şey öyrənir. Tərcümeyi-hal materiallarının tədrisi şagirdlərdə vətənpərvərlik, əməksevərlik, təbiətə sevgi kimi nəcib hisslərin formalaşmasında mühüm rol oynayır. Beləliklə, tərcümeyi-hal materiallarının tədrisi şagirdlərin hisslərinin incəliyinə və davamlılığına kömək edir.

**Açar sözlər:** yazıçı, tərcümeyi-hal, müzakirə, müəllim, şagird

**ABSTRACT**

The purpose of research work is to investigate the disadvantages that occur during the teaching of biography materials and to explore which variants are more cost-effective. When providing biography materials in classes, upper-classes textbooks provide information in a clear and detailed format. One hour is allocated. In lower classes, no additional time is allocated for the teaching of biography materials. Teachers create opportunities for students to imagine the life and creativity of artists by drawing general conclusions from their works, thus creating an understanding of the writer and their spiritual world. In the 7th-grade lesson for teaching biographical materials , both the writer's quotes and thoughts about them provide opportunities. The valuable and precious thoughts about the biography materials of our distinguished literary figures such as Samed Vurgun, Eyvaz Zeynalli, Hikmet Ziya, Chingiz Aitmatov, Mikayil Mushfig, Aliaga Kurjayli find their reflection in the textbook. Students become acquainted with the creative ideas and thoughts of eminent and powerful

artists. Using training technologies makes the teacher's lesson interesting for students, leaving indelible traces in their memory about the biography and works of art. The study and recognition of these authors and their works do not go unnoticed in the spiritual development of students. An attentive reader learns a lot from literary works. The teaching of biography materials plays a significant role in the formation of noble feelings such as patriotism, industriousness, and love for nature in students. Thus, the teaching of biography materials contributes to the refinement and continuity of students' feelings.

**Key words:** writer, biography, debate, teacher, student

**GIRIŞ**

Ədəbiyyat ümumtəhsil məktəblərində başlıca təlim fənlərindən biridir. Bədii yaradıcılıq məhsulu olan bu fənn gerçəkliyin mürəkkəbliyini, həyatı ifadə etməsi, hiss və duyğuya, hərəkət və münasibətə təsir göstərməsi, zövqü genişləndirməsi, daxili qüruru, inamı və fərəhi artırması elmi-nəzəri fikirlərdə əsaslandırılır. Ədəbiyyatın tərbiyəvi əhəmiyyəti daha çox yeni ideyaların yaranmasında, əxlaq və mənəviyyata göstərdiyi təsirdə, ədalətə, həqiqətə, haqqa çatmaqda, adət-ənənələri yaşatmasında axtarılır.

Sadalanlara nail olunması yalnız bədii əsərləri deyil, bununla bərabər əsərləri ərsəyə gətirən sənətkarların şəxsiyyətini, örnək götürüləcək həyatlarınıda mükəmməl öyrənməyi tələb edir.

Oxunulan şeirlər, hekayələr, poemalar nə qədər qiymətli, mənalı olsa da, sənətkarın bioqrafiyasını bilmək, yaşadığı ibrətamiz hadisələri, haqqında faktları öyrənmək və bunların əsasında şagirdləri tərbiyələndirmək ikiqat dəyərlidir. Hər bir yazıçı şəxsiyyətinin öyrənilməsi həmçinin həmin sənətkarın əsərlərinin daha yaxşı başa düşməsinə hazırlayır. Şəxsiyyət dedikdə adicə yazan olmaq demək deyil. Böyük hərfli Şəxsiyyət böyük hərfli Vətəndaş, İstedad, Mütəfəkkir olduğunu Azərbaycan ədəbiyyatının tarixi sübut edir.

Yeni üsullu dərsliklərdə tərcümeyi-hal materialları müəllifin həyatı, yaradıcılıq yolları ilə əvəz olunmuşdur. Hazırda müəllifin həyat və yaradıcılıq yolları ənənəvi üsuldan fərqli olaraq birlikdə tədris olunur. Bu layihə doğru hesab edilmişdir.

Yeni təhsil proqramının (kurikulumun) tələbi ilə yazılan müəllim üçün vəsaitdə sənətkarın həyat və yaradıcılığının öyrənilməsi X-XI siniflər istisna olmaqla, təlim zamanı mətnin öyrənilməsilə birgə baş tutduğu əks olunur. Tərcümeyi-hal materiallarının verilməsinin məqsədi sənətkarların ədəbi aləmə gəlişi, dünyagörüşləri haqqında informasiyalar şagirdlərə müsbət əxlaqi-mənəvi keyfiyyətlər aşılayır. Çünki ədəbiyyatımızın yaradıcıları olan həmin sənətkarların hər biri yaşadıqları dövrün canlı timsalıdırlar. Onların həyatı tərbiyə məktəbi, ibrət aynası kimi çıxış edir. Şagirdlər əyani şəkildə dərk edirlər ki, dövründən asılı olmayaraq xalq yolunda zəhmət çəkən, qələm çalan heç kəs unudula bilməz. Kim vətən, xalq yolunda yaxşı iş görərsə, xalqın istəklərinə biganə qalmasa, o şəxslər min illər keçsə belə xalqın yaddaşından çıxa bilməz. Bu sözün əsl mənasında həqiqətdir.

Şagirdlər həmin məlumatları öyrəndikdə anlayırlar ki, insanların cismani ömürləri ilə yanaşı, mənəvi ömürləri də var. Həm də bu ömür əgər xalq üçün gərəkli olubsa, bu zaman o, illər, əsrlər çərçivəsinə sığmır. Ədəbiyyat fənni tədris olunduğu vaxtdan etibarən sənətkarın həyat və yaradıcılıq yolu materialları öyrədildikdə bu kimi məsələlər müəllimlərin hər zaman diqqət mərkəzində olmalıdır.

Sənətkarın həyatı və eləcə də yaradıcılıq yolu enişli-yoxuşlu, əzab-əziyyətli ömür salnaməsidir. Bu kimi materiallarla tanışlıq zamanı şagird aydın şəkildə müşahidə edir ki, insanın həyatda yüksəliş yolunun başlanğıcı, mənbəyi və sonu nələrdən təşkil olunur, burada uğurların, çatışmazlıqları törədənlərin səbəbi nədir.

Şagirdlər belə materiallar əsasında xalqımızın tarixini yaxşı öyrənir, ədəbi əsərlərin yüksək səviyyədə qavranılması təmin olunur və mənəviyyatlarını zənginləşdirə bilirlər.

Yazıçının ədəbiyyat tarixində mövqeyi, novatorluğu, özündən sonra gələn ədəbi nəsillərə təsiri, ənənələrə sadiqliyi kimi məsələlər məktəblilərə sadəcə ədəbi-tarixi biliklər vermir, həm də onların milli qürur, ləyaqət hissinin formalaşdırılmasında olduqca fəal rol oynayır.

Təcrübələr göstərir ki, V sinifdən IX sinfə qədər sənətkarın tərcümeyi-halının öyrənilməsi zamanı şagirdlərin yaddaşını yükləyən ikinci dərəcəli məlumatları, faktları dərsə gətirmək məqsədəuyğun deyil.

Mükəmməl ideyaların carçısı olan yazıçı haqqında yaddaqalan, canlı, ifadəli giriş onun əsərlərinin dolğun şəkildə qavranılması üçün zəmin yaradır.

Məktəblərdə tərcümeyi-hal materiallarının tədrisində yazıçının mühiti, dövrü, sinfi mənsubiyyəti, tərbiyəsi haqqında məlumat verilməməsi, sənətkarın ictimai amalı, dünyagörüşü ilə şəxsi həyatı arasında ziddiyətin göstərilməməsi, sənətkarın tərcümeyi-halını maraqlı etmək üçün ikinci dərəcəli, əhəmiyyəti olmayan məsələlərin qabağa verilməsi nöqsan kimi qeyd olunur.

Sənətkarın tərcümeyi-halının öyrənilməsi zamanı səbəb-nəticə əlaqələrinin müəyyənləşdirilməsi ( sənətkarın həyatdakı subyektiv amillər, dövr və sənətkarın yaradıcılığı), sənətkarın həyat və yaradıcılıq yolunun vacib mərhələlərinin müəyyənləşdirilməsi məqsədə uyğun sayılır.

Sənətkarın həyat və yaradıcılıq yolları şagirdlərin sənətkarın bədii söz dünyasını, ədəbi-bədii prossesi düzgün dərk etmələrində, şəxsiyyət və yaradıcılığının vəhdətdə qavranılmasında mühüm rol oynayır.

Sənətkarların həyatı və yaradıcılıqlarını öyrənən materiallar imkan verir ki, məktəblilərimiz müxtəlif həyat hadisələrinə sənətkarların gözü ilə baxsınlar, bu həyatdan özlərinə çox şey götürməyə cəhd edib, dövlətimizin layiqli vətəndaşlarına çevrilə bilsinlər. Tərcümeyi-hal materiallarının nə kimi əhəmiyyət kəsb etdiyini nəzərdən keçirdikdən sonra onun nə cür tədrisi məsələsi üzərində dayanaq.

"Müəllim sənətkara düzgün qiymət vermək, ədəbi fəaliyyətinin necə davam etdiyini, bununla belə, həyat və yaradıcılığına, əsərlərinə necə təsir etdiyini məktəblilərə mənimsətmək üçün bu tələbləri diqqət mərkəzində saxlaması vacib sayılır:

1) Dövrün mədəni mühitinin sənətkarın həyat və yaradıcılığına göstərdiyi təsir əhatəli şəkildə müəyyən olunmalıdır.

2) Sənətkarın həyat və yaradıcılığından danışılacaq dərslərdə emosional-əhval ruhiyyənin yaradılması müvəffəqiyyətin əldə olunmasına əhəmiyyətli təsir göstərir" (Yusifov, 2017, s. 212- 220).

Aparılan müşahidələr göstərir ki, şagirdlərdə yazıçıya məhəbbətin yaranması müəllimin təqdimatından çox asılıdır.

Tərcümeyi-hal materiallarının öyrədilməsinə müsbət təsir göstərən məqam müəllimin metodik ustalığı, yüksək nəzəri hazırlığı, təşkilatçılığı ilə şagirdlərin sevimlisi olmaq bacarığıdır. Təbii ki, bu işdə ona məktəb rəhbərliyi, digər ədəbiyyat müəllimlərinin köməyi vacib və mütləq hesab olunur.

Hər bir ədəbiyyat müəllimini düşündürən məsələ budur ki, sənətkarın həyatı və yaradıcılıq yollarının öyrədilməsinə nədən başlayaq ki, buda əsərlər kimi təsirli olub, maraq dairəsinə çevrilsin. Müşahidələr sübut edir ki, nəcib insani keyfiyyətləri özündə birləşdirən sənət adamlarının həyatı, taleyi, ailə üzvləri ilə tanışlıq məktəblilərdə daha çox maraq oyadır. Şagirdlər öyrədilən sənətkarın əsərlərindən çox həyatındakı faktları, hadisələri səbirsizliklə öyrənmək istəmələri də bunu təsdiq edir. Həm də onlar sevdikləri müəllifə oxşamaq, əsərlərindəki fikirlərlə, ideyalarla mənəviyyatlarını zənginləşdirmək istəyirlər.

Əslində, bu cür materialların tədrisi daha çox hazırda X-XI siniflərin öhtəliyinə düşüb. Ancaq digər siniflərə aid metodik vəsaitlərdə də şagirdlərin idraki səviyyəsinə uyğun olaraq qısa da olsa, bu materiallar tədris olunur.

VII sinifdə də sənətkarın həyatı və yaradıcılığı materiallarının öyrədilməsinə ayrıca dərs saatı verilmir. Son illərdə dərsliklərdə aparılmış bu dəyişikliklər qənaətbəxş hesab edilir, müsbət qiymətləndirilir. Bu məlumatların müəllimin giriş sözündə öyrədilməsi son dərəcə vacib sayılır. Bu da müəllimdən ciddi hazırlıq, ədəbiyyat tarixini, monoqrafik əsərləri bilməyi, oxumağı tələb edir.

VII sinif Ədəbiyyat dərsliyi beş bölmədən ibarətdir. Dörd bölmədə sənətkarlar haqqında məlumat verilib. Həmin bölmələr bunlardır:

1) Vətən sevgisi, Qəhrəmanlıq səhifələri
2) Mənəvi dəyərlər, Həmişəyaşar hikmətlər
3) Uşaq aləmi, Uşaq taleyi
4) Təbiətə vurğunluq, Təbiətə qayğı

I bölmədə Səməd Vurğun, Eyvaz Zeynallı, Mirzə İbrahimov, Rahil Məmmədov, Zahid Xəlil, Mikayıl Rzaquluzadə, II bölmədə Abbasqulu ağa Bakıxanov, Çingiz Aytmatov, Hikmət Ziya, Fikrət Qoca, Abdulla Şaiq, III bölmədə Süleyman Sani Axundov, Ənvər Məmmədxanlı, Elçin Hüseynbəyli, Mir Cəlal, Viktor Hüqo, lV bölmədə Mikayıl Müşfiq, Bayram Həsənov, Əliağa Kürçaylı, İlyas Əfəndiyev, Hüseyn Arif haqqında qısa məlumat və onların yaradıcılıq məhsulu olan şeirlərindən, hekayələrindən görülür.

Nəzərə almaq lazımdır ki, həmin yaş dövründə olan uşaqlar ətrafda baş verən, kitablarda oxuduqları hər şeyi öz şəxsiyyətləri ilə, hiss və həyəcanlarının daxili aləmi ilə müqayisə etməyə

çalışır. Bunun üçün də dərsliklərdə verilən sənətkar haqqında söylənmiş qiymətli sözlər, yazıçının sitatları əsasında zənginləşdirilməsi dərsliyi ən yaxşı təlim-tərbiyə vasitəsinə çevirir. Əlbəttə, bu dərsliklərdə geniş məlumat vermək mümkün deyil. Ona görə də müəllim əlavə ədəbiyyatdan istifadə etməli, özü bu prossesdə nümunə olaraq maraqlı dərs modeli qurmağı bacarmalıdır.

Texnologiyanın inkişaf etdirilməsi bu sahəyə də təsirsiz ötüşməyib. Sənətkarın həyat və yaradıcılığının öyrənilməsi ilə bağlı yeni iş formalarından istifadə edir.

Dərsin hansı iş formalarından ( fərdi, kiçik və ya böyük qruplarla iş), iş üsullarından ( müsahibə, müzakirə, açıq suallar) istifadə olunacağı müəyyən olunur. Resurslarda, məsələn, dərsliklər, şəkillər, internet məlumatları, film parçalarından istifadə edilməsi, foto-şəkillərin, video yazıların, faktların şagirdlər tərəfindən toplanması və təqdimi, tərcümeyi-hal materialının qısa olmasına baxmayaraq yaddaqalan edər və rəngarənglik qatar. Burada mühazirə metodundan istifadə özünü doğrultmur. Bu, şagirdləri yorur, bilik və bacarıqlarını inkişaf etdirilməsinə mənfi təsir göstərir. Venn diaqramından, əqli hücumdan, BİBÖ-dən istifadə etmək təlim materialının öyrənilməsinə imkan yaradır.

Sənətkarın tərcümeyi-halı ilə bağlı onu yaradıcı şəxsiyyət kimi səciyyələndirən faktlar, epizodlar, xatirələr, fikirlər dərsə gətirilməlidir. Sənətkarın şəxsiyyəti ilə yaradıcılığının vəhdəti haqqında dolğun təsəvvür yaratmaq vacibdir.

Metodist alimlər arasında da tərcümeyi- hal materiallarının VII siniflərdə verilib-verilməməsi ilə bağlı fikir ayrılıqları mövcuddur. Bir qrup metodist alimlərin fikrinə görə bu siniflərdə tərcümeyi-hal materiallarının öyrədilməsi yox, ancaq müəllifin əsərini öyrətmək lazımdır. Digər metodist alimlər isə müəllifin əsərini tərcümeyi-hal materiallarının öyrətmədən şagirdə mənimsədə bilmərik mövqeyində dururlar. Üçüncü fikrin tərəfdarların məsələnin asan yolunu müəllimin giriş sözündə ifadə etdiyi təqdimatda axtarırlar.

VII sinif dərsliyində hər mövzuya ayrılan saatlarda əsərlərlə yanaşı müəlliflə tanışlığada yer verilir. Burada müəlliflərin şəkilləri, doğulduqları və vəfat edənlərin tarixləri qeyd olunub. Bəzi sənətkarlar haqqında digər yazıçıların fikirləri qeyd olunub, bəzilərinin isə özlərinə aid sitatları gətirilib. Hər bir müəllifin əsərləri də öz aktuallığı ilə seçilir. Həmin əsərlər vasitəsilə də bir növ sənətkar haqqında məlumat verilir.

Səməd Vurğunun "Azərbaycan" şeirində vətəninə, torpağına vurğunluğu müşahidə edilir. Bunun mühüm səbəbi ustalıqla yazılmasıdır.

Eyvaz Zeynallı demişdir, "uşaqlar üçün əsər yazmaq, dünyanı onların gözü ilə görmək asan deyil. Uşaqların nə fikirləşdiyini duymaq da asan deyil. Bu dediklərimə nail olmaq üçün onlarla yoldaş olmalısan" (Əliyev, Həsənov, Mustafayeva, Məmmədova, 2022, s. 55, 64). Göründüyü kimi Eyvaz Zeynallı uşaqların fikirlərini, düşüncələri onun üçün maraqlıdır və onlar da vətənpərvərlik hisslərinin aşılanması üçün yazdığı "Kəşfiyyat" hekayəsi İkinci Qarabağ savaşı ilə bağlıdır. Hadisələri canlandırmaq üçün şagirdlərin səhnıciklər hazırlaması həm müəllifi, həm də əsəri yaddaqalan edə bilər.

Hikmət Ziyanın tərcümeyi-halınında bu dərslikdə verilməsi, şagirdlərə öyrədilməsi özünəməxsusluğu ilə seçilir. Qara Namazov Hikmət Ziya haqqında yazarkən demişdir ki, Hikmət Ziyanın təmsilləri uşaq aləmi üçün maraqlı olmaqla yanaşı, yeni fikirlərlə zəngindir. Bunu sənətkarın "Kərgədan qarışqa" təmsilində də görmək mümkündür. İnsana aid olan xüsusiyyətləri kərgədan və qarışqanın simasında əks etdirərək müəllif uşaqları əməyə, zəhmətə səsləyir. Təlim zamanı Hikmət Ziya ilə bağlı müəllimin sənətkarın şəkillərindən, ailə üzvlərindən, kitablarından, əsərlərindəki illüstrasiyalardan ibarət hazırladığı məlumatverici videoçarx nümayiş olunur. Şagirdlərdə sənətkar haqqında təsəvvür formalaşır. Sonrakı gedişatda müəllim canlı təbiətdə şagirdlərdən kərgədan və qarışqanı müşahidə etdikləri zamanı nəyi sezdiklərini aşkara çıxara bilər. Daha sonra xarakterik olaraq insanlarla əlaqələndirilir.

Bədii əsər oxucuda müsbət hisslər yaradır, həyatı, insanları başa düşməkdə ona köməklik edir. Ancaq bu həm yazıçıdan, həm də oxucudan böyük diqqət, zəhmət, həssaslıq tələb edir. Yazıçı Fikrət Qoca oxucuları üçün maraqlı olan əsərləri yazaraq həmçinin öz mənəviyyatını da qismində olsa əks etdirib. Həmin əsərlərin biri VII sinif dərsliyindəki "Anamın sözləri" şeiridir. Şagirdlərədə ananın müqəddəs, canlı mələk, ruhunu, zehnini işıqlandıran olduğunu bildirmişdir.

Müəllim əvvəlcədən mövzunun nə olduğunu bildiyi üçün motivasiya hissəsində analarla bağlı təsiredici video nümayiş etdirib, yazıçı Fikrəy Qocanı bu mövqedən çıxış edərək tanıda bilər.

Ənvər Məmmədxanlı həyatda gördüklərini qələmə almağa laqeyd qalmamağı deyib. O həm xoşbəxt, həm də bədbəxt insanların taleyini eyni həssaslıqla qələmə almışdır. Həyatda baş verən pislikləri göstərib, bunların səbəbini oxuculara açmışdır. "Qızıl qönçələr" hekayəsi bu kimi əsərlərindən sayılır. Bu əsərində Cənubi Azərbaycanda yaşayan soydaşlarımızın həyatından danışılır. Bununla şagirdlərdə güclü hisslərin baş qaldırmasına, dərin düşüncələrin yaranmasına səbəb olur. Sənətkarın mənəvi duyğularını, hissləri yazdığı bu hekayədən öyrənmək olur. Şagirdlərə yazıçıların əsərlərini tədris edərək onların daxili aləmlərini aşkar edə bilirlər.

Mikayıl Müşfiqin tərcümeyi-halının verilməsi şagirdlərdə gələcək mütaliələrində Mikayıl Müşfiqə sevgilərindən dolayı əsərlərini mükəmməl bilmələri ilə nəticələnəcək. Gülhüseyn Hüseynoğlu Mikayıl Müşfiq haqqında nə yazırdısa ürəkdən yazırdı, əmək, təbiətə məhəbbət yaradıcılığının mühüm mövzularından sayıldığını, lirik şeirlər, mənzum nağıllar, poemalar yazdığını, səmimiyyəti ilə diqqəti cəlb etdiyini qeyd etmişdir. Təbiətə vurğunluğunu dərslikdə göstərilmiş "Yağış yağarkən" şeirində görünür. Yağışın yağmasının təsviri ilə yanaşı bu təbiət hadisəsinə insanın münasibəti də əksini tapdığı ifadə olunub. Əsərlərindən çıxış edərək müəllifləri şagirdlərə tanıtmaq bu gün dərsliklərin özəlliyi olaraq çıxış edir.

Bayram Həsənov ilə bağlı qısa məlumat da onun haqqında təsəvvür yaratmağa imkan verir. Dərslikdə sözlərin aydın, səlis seçilməsi şagirdlərin öyrəndiklərini yenidən oxuduqları zamanı asan başa düşməklərinə şərait yaradır. Yazıçının əsərlərinə diqqət yetirildikdə yazıçı haqqında məlumat əldə etmək mümkündür. Hekayələrini uşaq dünyasına məxsus romantik boyalarla, səmimi, aydın, təbii ifadələrlə qələmə almışdır. Sənətkarın "İki bala" hekayəsində ibrətamiz fikirlər aşılaması, yəni ayının balalarına olan məhəbbətindən, onları itirdiyi zaman çəkdiyi dərddən söz açaraq insani duyğuları əks etdirib. Müəllim tərəfindən dərsin düzgün qurulması ilə yazıçı barədə şagirdlərdə müsbət fikirlər aşılanır.

Əliağa Kürçaylı məşhur sənətkarlardan biridir. Əliağa Kürçaylıya görə sənətin, poeziyanın yollarının geniş və işıqlısı da var, ensizi, daşlısı da var. Sənətkarın hansı yoldan olduğunu oxucu deyə bilər. Onun bu fikirlərindən belə bir nəticəyə gəlmək olur ki, yazıçının əsərləri oxucu tərəfindən sevilərsə qiymətlidir. Şairin "Qaranquş" şeiri də tərbiyəvi mövzudadır. Digər canlılarda da güclü övlad məhəbbətinin olmasından söz açaraq, təsvir olunan hadisə şagirdlərdə dərin iz buraxır. Müəllim şagirdlərə bunları əyani olaraq videoçarxla izlətməklə dərsi daha maraqlı etmiş olar.

**TƏDQİQAT METODU**

Qarşıya qoyulmuş məsələni, yəni şagirdlərə tərcümeyi-hal materiallarının öyrədilməsi üçün müxtəlif metodlardan istifadə olunur. Bu mövqedən yanaşaraq müzakirə, sorğu metodlarının tətbiq olunması daha məqsədəuyğun hesab olunur. Aparılan təcrübə müsbət qiymətləndirilir.

**NƏTICƏ**

Müəllimlər şagirdlərin sənətkarın həyat və yaradıcılığını öyrənmələri üçün əsərlərdən çıxış edərək ustalıqla, təlim texnologiyalarından istifadə edərək, müzakilər ilə, tədqiqat sualları vasitəsilə dərsi qurduğu zaman maraqlı, unudulmaz olması imkan daxilindədir.

Məzmun üzrə iş, təhlil üzrə işlə bağlı olan tapşırıqları şagird həm fərdi, həm müəllimin köməkliyi ilə həll etdiyi zaman həmin təlimin nəticəsi uğurlu olar.

Ümumiyyətlə, dərslikdə verilmiş müəlliflər haqqında fikirlər yığcam olsa da, əsərlərindən onların mənəvi aləmləri, şəxsiyyətləri haqqında məlumat əldə etmək olur. Şagirdlər bunları daha dərindən öyrənmələri üçün sənətkarın əsərlərini müzakirə edir, yazıçının yaradıcılıq özünəməxsusluğunu aşkara çıxarırlar.

Yaxşı olar ki, şagirdlər asudə vaxtlarda ekskursiya xarakterli müəllimin fənni tədris edərkən tanış etdiyi yazıçıların, şairlərin ev muzeylərinə aparılsın. Bununla yanaşı, onların kinoteatrlara aparılaraq həmin sənətkarlarla bağlı film izlənməsinə şərait yaransın.

Nəticə etibarilə ümumtəhsil məktəblərində fənnin daha yaxşı tədris olunması və şagirdlərin fənni tam öyrənmələri, mənimsəmələri üçün paralel siniflər arası, eləcə də məktəblər arası intellektual səviyyəli yarışmalar keçirilsin. Bunun müqabilində qalib gələn komandalar kuboklar, medallar, diplomlar ilə təltif olunsun.

**ƏDƏBİYYAT SİYAHISI**
6. Aslanov, Y. (2011). Ədəbiyyatın tədrisi metodikası: Ənənə və müasirlik. Bakı.
7. Əhmədov, C. (1991). Ədəbiyyatın tədrisi metodikası. Bakı.
8. Əliyev, S., Həsənov, B., Mustafayeva, A., & Məmmədova, S. (2022). Ədəbiyyat. Bakı: Bakınəşr.
9. Həsənli, B. (2016). Ədəbiyyatın tədrisi metodikası. Bakı.
10. Yusifov, F. (2017). Ədəbiyyatın tədrisi metodikası. Bakı.

# TƏHSİLDƏ İNNOVASİYALARA MÜASİR YANAŞMALAR

**QƏNİRƏ BALAKİŞİYEVA**
Bakı Mühəndislik Universiteti
Kimya /Kimyanın tədrisi metodikasıı
*qaniradasdiyeva@gmail.com*
BAKI, AZƏRBAYCAN

**ARZU PAŞAYEVA**
Bakı Dövlət Universiteti
Kimya/Kimyanın tədrisi metodikası
*Pasayeva-1969@mail.ru*
BAKI,AZƏRBAYCAN

**XÜLASƏ**

Bu məqalədə innovasiyanın mahiyyəti və məzmunu araşdırılır. İnnovasiya təcəssüm etdirilən intellektual fəaliyyət şəklində təqdim olunur. Məqalədə cəmiyyətdəki sosial, istehsalat, texniki, iqtisadi münasibətlərə təsiri çərçivəsində "innovasiya", "yenilik" və "yenilikçi" anlayışlarının arasındakı əsas fərq açıqlanır. İnnovasiyanın konkret mənası və müəyyən nəticəsi olan bir kateqoriya kimi qəbul edilməsinə xüsusi diqqət yetirilir.Təhsildə innovasiyalara müasir yanaşmaların təhsilin keyfiyyətini necə yüksəltməyə və müəllimlərin peşəkar inkişafına necə təsir etdiyi, həmçinin bu yanaşmaların təhsil sistemində necə inteqrasiya edildiyi ətraflı şəkildə izah edilmiştir.

**AÇAR SÖZLƏR:** İnnovasiya, yenilik, innovativ proses, innovasiyanın sferası, innovasiyanın potensialı, innovativ fəaliyyət fəaliyyət.

**SUMMARY**

This article explores the essence and content of innovation. Innovation is presented as a form of intellectual activity embodied. The article explains the main difference between the concepts of “innovation,” “novelty,” and “innovative” within the context of their impact on social, production, technical, and economic relations in society. Special attention is paid to the acceptance of innovation as a category with a concrete meaning and a definite result. The article also thoroughly describes how modern approaches to innovations in education can enhance the quality of education and affect the professional development of teachers, as well as how these approaches are integrated into the education system.

**KEY WORDS:** innovation, innovation, innovation, history of innovation, innovation process, innovation sphere, innovation potential, innovation activity.

## GIRIŞ

Təhsildə innovasiyalara müasir yanaşmaların əhəmiyyəti, bu sahədə aparılan yeniliklərin təhsilin keyfiyyətini necə yüksəltməyə kömək etdiyini və müəllimlərin peşəkar inkişafına necə təsir etdiyini vurğulayır. Azərbaycan’da Təhsildə İnnovativ Texnologiyalar (ITE) mərkəzi, tədris prosesində yeni yanaşmalar tətbiq etməyə hədəflənmiş bir əlavə təhsil müəssisəsi olaraq fəaliyyət göstərir.

"İnnovasiya" anlayışı ilə bağlı diskussiya xarakterli fikirlər əsaslandırılmışdır. "İnnovasiya" anlayışının daha əvvəl məlum olmayan təhsil ideyaları, elmi tədqiqat yeniliyi, təkmilləşdirilmiş, yenidən bərpa edilmiş ideyalar və dəyişən şəraitdə məqsədlərin yenidən qurulması kimi şərh edilmişdir. Elmi dövriyyədə olan pedaqoji-psixoloji əhəmiyyətli ədəbiyyatla ətraflı tanış olunmuş, müəlliflərin yaradıcılığına ehtiramla yanaşmış, onlardan səmərəli bəhrələnməsi tədqiqatın aktuallığını təşkil edir. Müasir təhsil mühitində, innovasiyaların tətbiqi, müəllimlərin İKT savadlılığının artırılması, distant təhsil, onlayn ünsiyyət, Layihə əsaslı öyrənmə vasitəsilə İnteqrasiya edilmiş STEM təhsili, Elektron Resurslardan istifadə edərək İnteqrasiya edilmiş Metodların İnkişafı kimi sahələrdə görülən işlər, təhsilin effektivliyini artırmaqda mühüm rol oynayır. Bu yanaşmalar, təhsilin daha interaktiv və məqsədyönlü olmasını təmin edərək, tələbələrin dəyişən dünya şəraitinə uyğunlaşmasına və yaradıcı düşünmə bacarıqlarını inkişaf etdirməsinə imkan verir.

Təhsildə keyfiyyət problemi, müxtəlif nəzəriyyələr, metodlar və vasitələrdən istifadə edilərək həll edilməyə çalışılan ənənəvi bir məsələdir[2]. Müasir dövrdə, bu problemin həlli üçün innovasiyaların tətbiqi, təhsilin keyfiyyətinin yüksəldilməsində yeni imkanlar yaradır (Harris,2021).

"İnnovasiya" anlayışı avstriyalı və amerikalı iqtisadçı Y. Şumpeterin əsərlərində də geniş şərh olunmuşdur. "The Theory of Economic Development» əsərində o yazır ki, innovasiya fəaliyyəti insan kollektivinin yeni elmi biliklər, ideyalar, kəşflər və ixtiralar, mövcud elmi texElement nologiya sistemi, müasir avadanlıqların necə istifadəsi və tətbiqi əsasında innovasiyaların tam həcmdə ictimai realizəsinə yönəldilmiş sistemli fəaliyyət növüdür". "İnnovasiya" sahibkarlıq ruhu ilə motivləşdirilmiş istehsal amillərinin yeni elmi-təşkilati kombinasiyasıdır (Şumpeter,2021).O, 1900-cü ildə iqtisadiyyatda "innovasion kombinasiyalar" problemini tədqiq edərək, iqtisadi sistemin kəmiyyət və keyfiyyətcə inkişafında innovasiyaların vacib faktor olduğunu sübut etmiş, innovasiya anlayışına yeni həyat vermişdir. Bu termin həmin dövrdən başlayaraq sosialiqtisadi və mədəni həyatın bütün sahələrində istifadə olunmasına vəsiqə almışdır. Hər bir yeniliyin deyil, yaradılıb, tətbiq olunub, müxtəlif sahə sistemlərinin səmərəliliyini yüksəldən və zamanın tələbinə uyğun idarəetməni təmin edən yeniliyin innovasiya olduğunu əsaslandırmışdır. Digər tədqiqatçı Klarin innovasiya anlayışını bir alətin yeni üsullarla texnika və texnologiya ilə inkişaf prosesi kimi izah etmişdir (Klarin,2014).

Müəllif innovasiyanı fərdlər tərəfindən yeni olaraq qəbul edilən fikir, təcrübə və ya obyekt formasında təsnif etmişdir. V.A. Slastenin və L.S. Podımovanın innovasiya ilə ənənəviliyin müqayisəsinə, onların arasında müəyyən ziddiyyətlər mövcudluğu və həlli yollarına həsr olunmuş tədqiqatlarında mü26 əllimlərin innovativ peşə xüsusiyyətləri ilə əlaqədar yeni nəticələr əldə olunmuşdur. Azərbaycan Respublikası dövlət müstəqilliyinə nail olduqdan sonra təhsilin bütün pillələrində, o cümlədən ibtidai sinif müəllimlərinin hazırlığı prosesində innovasiyalar üzrə pedaqoji işin sisteminin tətbiqi və təkmilləşdirilməsi prioritet istiqamət kimi daim diqqət mərkəzində olmuşdur. İbtidai sinif müəllimlərinin hazırlığı prosesi üçün xüsusi zərurilik kəsb edən innovasiyaların klassifikasiyası, təhlili və ümumiləşdirilməsi bu nöqteyi-nəzərdən maraq doğurur. Keçən əsrin 90-cı illərinin ikinci yarısından başlanan təhsil islahatları sayəsində ibtidai sinif müəllimi hazırlığı üzrə innovasiyalara əsaslanan ali pedaqoji iş sistemi formalaşmışdır. Təsadüfi deyil ki, Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: Gələcəyə Baxış" İnkişaf Konsepsiyasında innovasiya və onun cəmiyyətə verə biləcəyi faydalardan bəhs edən müddəalar yer almışdır. Təhsilin inkişafı və onun innovativliyi ilə bağlı konsepsiyada deyilir: "Elmi potensialın və innovasiya fəaliyyətinin dəstəklənməsi; elmin inkişafı yerli xüsusiyyətlər və qlobal meyllər nəzərə alınmaqla prioritetləşdiriləcək və mütərəqqi dünya elminə səmərəli inteqrasiya prosesi davam etdiriləcəkdir. Elmi infrastrukturu təkmilləşdiriləcək, elmin maddi-texniki bazası müasirləşdiriləcək və bu sahədə informasiya təminatı sistemlərinin elektron formaya keçirilməsi təmin ediləcəkdir" (İnsforth,2017).

**NƏTICƏ**

Problemin praktik əhəmiyyəti və tətbiqi. Problemin tədqiqinə həsr olunmuş xarici ölkə müəlliflərinin əsərləri də tədqiqatın yol xəritəsinin hazırlanması, problemə münasibətdə milli və beynəlxalq mövqelərin müqayisəsi, elmi nəticələrin çıxarılmasına istiqamət vermək baxımından kifayət qədər əhəmiyyətli olmuşdur. Təhsildə innovasiyalara müasir yanaşmaların tətbiqi, müəllimlərin,şagirdlərin daha interaktiv və effektiv öyrənmə mühitində iştirak etmələrinə imkan verir. Bu yanaşmalar, təhsilin keyfiyyətini yüksəltmək, təlim metodlarını müasirləşdirmək və təhsil müəssisələrinin iqtisadi inkişafına töhfə vermək məqsədi daşıyır. Məsələn, distant təhsil və onlayn

ünsiyyət vasitələri, təhsil prosesini daha əlçatan və inklüziv hala gətirir. Eyni zamanda, İKT biliklərinin inkişafı və layihə əsaslı öyrənmə kimi innovativ metodlar, şagirdlərin düzgün düşüncə qabiliyyətlərini və problem həll etmə bacarıqlarını artırır.

Son illərdə Azərbaycanda təhsil sahəsində edilən yeniliklər, xüsusilə də Təhsildə İnnovativ Texnologiyalar (ITE) kimi müəssisələrin fəaliyyəti, bu sahədəki müsbət dəyişikliklərin bariz nümunəsidir. ITE, müəllimlərin peşəkar inkişafını gücləndirmək üçün UNESCO ilə əməkdaşlıq edir və müxtəlif beynəlxalq təşkilatlarla işbirliyi içindədir. Bu cür təşəbbüslər, təhsilin hər səviyyəsində innovasiyaların tətbiqini təşviq edir və Azərbaycanın təhsil sistemini daha da müasirləşdirir.

Nəticə olaraq, təhsildə innovasiyalara müasir yanaşmalar, təhsilin effektivliyini artırmaq, şagirdlərin yaradıcılıq və innovativ bacarıqlarını inkişaf etdirmək və ölkənin iqtisadi inkişafına töhfə vermək üçün vacibdir. Bu yanaşmaların davamlı olaraq tətbiqi, gələcəkdə daha da müsbət nəticələrə yol açacaq və təhsilin bütün səviyyələrində keyfiyyətin yüksəldilməsinə kömək edəcəkdir.

**ƏDƏBIYYAT SIYAHISI**

1. Шумпетер, Й.А.Теория развития экономики / Й.А. Шумпетер -Москва:- 2007. - 864 с. 16. Rogers, E. Diffusion of Innovations / E. Rogers. –NY: - 2021 - 576 c.

2. Кларин, М.В. Инновационное образование: Дидактический анализ. –Москва, - 2014. № 6, с. 32-39

3. Harris R.I.D. and M. Trainor “Innovation and R&D in Northern Ireland Manufacturing: A Schumpeterian Approach”, Regional Studies, 2021,29, pp.593- 604.

4. İnsworth, S. A conceptual framework for considering learning with multiple representations. Learning and Instruction,2017, 16(3),pp. 183-198.

5. Oslo Manual. Guidelines for collecting and interpreting innovation data. Third edition. A joint publication of OECD and Eurostat, 2017, pp.34

6. Pilot, A. Evaluating a professional development framework to improve chemistry teachers’ ability to design context-based education. International Journal of Science Education, 2012,34(10), pp.1487-1508.

# PROBLEM ƏSASLI ÖYRƏNMƏNİN KİMYANIN TƏDRİSİNDƏ TƏTBİQİ

**ZƏRİNƏ NAĞIZADƏ**
Bakı Dövlət Universiteti
Sosial Elmlər və Psixologiya fakültəsi
*nagizadezarina@gmail.com*
BAKI, AZƏRBAYCAN

XÜLASƏ

Tədqiqat işinin məqsədi innovativ təlim strategiyalarından biri olan problem əsaslı öyrənmənin kimya dərslərində şagirdlərin yaradıcı fəaliyyətinə təsirini araşdırmaqdır. Problemli öyrənmə real həyat problemlərinin tədqiqi və həlli ətrafında təşkil edilən, bununla yanaşı həm ağıl, həm də bacarıq baxımından fərdlərin fəal iştirakını tələb edən, təcrübəyə əsaslanan öyrənməni təmsil edir. Müasir təhsil sistemi öyrənənlərin fərdi maraqlarını, istək və gözləntilərini müəyyən edərək, real dünya bacarıqlarının inkişafına xüsusi əhəmiyyət verdiyinə görə təlim prosesini məhz bu yöndə qurmağa üstünlük verilir. Bu baxımdan, problem əsaslı öyrənmə yaşadığımız dünya ilə ən yaxşı şəkildə əlaqə qurmağa kömək edən təsirli tədris strategiyası hesab olunur. Şagirdlərin bir-birindən və müəllimdən aldıqları izahatlar əsasında öyrənmə prosesləri daim nəzərdən keçirilir. Onlar ilk növbədə problemin qoyuluşu ilə tanış olur, öyrənmə vəziyyəti və məqsədləri ilə bağlı yardım alırlar. Daha sonra

problemin həlli üçün müxtəlif araşdırmalar aparır, bir- birilə biliklərini bölüşür və həll yollarını müzakirə edirlər. Onlar həll etdikləri problemləri artıq bir model olaraq qəbul edir, oxşar vəziyyətlər ilə qarşılaşdığı zamanlarda bu modelə uyğun şəkildə hərəkət edirlər. Bu proseslər daxilində şagirdlərin problem həlletmə, tədqiqatçılıq, müstəqil öyrənmə, yaradıcılıq, əməkdaşlıq kimi qabiliyyətləri inkişaf edir. Tədqiqat işində də ilk olaraq problemli öyrənmə haqqında qısa izahat verilir. Daha sonra bu strategiyanın tətbiqi modeli, öyrənmə mərhələləri, onun şagirdə verdiyi faydalar, kimya dərslərində istifadə imkanları, nümunələr və s. yer alır.

**Açar sözlər**: kimya, problem əsaslı öyrənmə, yaradıcılıq, inkişaf

**SUMMARY**

The aim of the research is to investigate the effect of problem-based learning, one of the innovative teaching strategies, on students' creative activity in chemistry classes. Problem-based learning represents experiential learning that is organized around the investigation and solution of real-life problems, but also requires the active participation of individuals in terms of both intellect and skill. Since the modern education system determines the individual interests, wishes and expectations of learners and gives special importance to the development of real-world skills, it is preferable to build the training process in this direction. In this regard, problem-based learning is considered to be an effective teaching strategy that helps us best connect with the world we live in. Learning processes are constantly reviewed based on the explanations students receive from each other and from the teacher. First of all, they are introduced to the problem statement and receive help regarding the learning situation and goals. Later, they conduct various researches to solve the problem, share their knowledge and discuss solutions. They already accept the problems they solve as a model, and when faced with similar situations, they act according to this model. Within these processes, students' abilities such as problem solving, research, independent learning, creativity, and cooperation develop. A brief explanation of problem-based learning is also given first in the research paper. Then, the application model of this strategy, the stages of learning, its benefits to the student, possibilities of use in chemistry classes, examples, etc. takes place.

**Key words:** chemistry, problem-based learning, creativity, development

## GIRIŞ

***Tədqiqat işinin məqsədi:*** Tədqiqat işinin məqsədi ümumtəhsil məktəblərində kimya fənninin tədrisi prosesi zamanı problemli öyrənmə metodunun tətbiqi ilə şagirdlərin yaradıcılıq qabiliyyətlərinin inkişafının öyrənilməsidir.

***Tədqiqatın aktuallığı:*** Yaradıcılıq ünsürü gələcəyə istiqamət verən xüsusiyyətlərdən biridir. Öyrənmənin istənilən mərhələsində bu xüsusiyyətin inkişafına müsbət təsir göstərən metod və strategiyaların seçilməsi zəruridir. Çünki şagirdlərə necə düşünməyi öyrətmək onlara nə düşünməyi öyrətməkdən daha vacibdir.

***Tədqiqatın elmi yeniliyi:*** Aparılan tədqiqat işi:

7. Müasir dövrün tələblərinə cavab verən, real dünya problemlərinin həllində orijinal variantlar irəli sürən kadrların hazırlaşdırılmasını təklif edir;
8. Şagirdlərin yaradıcılıq və tədqiqatçılıq qabiliyyətlərinin formalaşmasına xidmət edir.

***Tədqiqatın praktiki əhəmiyyəti:*** Problemli öyrənmə strategiyası digər fənlərlə yanaşı, kimya fənninin tədrisində də ümumtəhsil məktəblərində pedaqoji prosesdə şagirdlərin yaradıcılıq qabiliyyətlərinin inkişafı prosesində tətbiq oluna bilər.

## TƏDQİQAT METODU

Problemli öyrənmə strategiyası 3 mərhələdə tətbiq olunur:

1. Problemi dərk etmək;
2. Problemi araşdırmaq;
3. Problemi həll etmək.

Birinci mərhələ, mövzunun ana xəttini ifadə edən anlayışın- problemin müəllim tərəfindən qoyuluşu ilə başlayır. İkinci mərhələdə, şagirdlər mümkün materiallardan istifadə etməklə araşdırma aparırlar. Sonuncu mərhələdə, irəli sürülən vaiantlar içərisindən orijinal həllər seçilir [Y.E. Kim, 2010].

Məlumdur ki, şagirdlər kimya fənni ilə məhz VII sinifdə tanış olmağa başlayırlar. Kimya kursunun "Allotropiya" mövzusunun tədrisində isə onlar hər şeydən əvvəl "allotropiya" anlayışının nəyi ifadə etdiyini öyənməlidirlər. Lakin, bu anlayışı şagirdlərə birbaşa elan etmək məqsədəuyğun hesab olunmur. Çünki, seçilmiş strategiyanın tətbiqi şagirdlərdə yeni məlumat axtarmaq, onlara naməlum bilikləri öyrənmək, kimyəvi eksperimentləri həyata keçirmək üçün maraq və həvəs doğurmalıdır.[ M.N.Hüseynov, G.N.İsmayılova, D.N.Əhmədova, 2019] Buna görə də yeni anlayışın müəyyənləşdirilməsi üçün təyin olunmuş fəaliyyətin ardıcıllığını aşağıdakı kimi təsvir etmək olar [ A.J. Visschers-Pleijers, D. Dolmans, I.H. Wolfhagen, C.P. Van der Vleuten. 2004]:

I. Problemin qoyuluşu: Bir bəsit maddənin başqa bir bəsit maddəyə çevrilməsi mümkün olarmı?

Şagirdlər bu suala müxtəlif cavablarını irəli sürürlər. Müəllim başqa bir köməkçi sualla müraciət edir: Oksigenin xassələri xarici amillərin təsirindən dəyişə bilərmi?

II. Problemin tədqiqi:

Verilən maddənin- oksigenin fiziki və kimyəvi xassələrinin araşdırılması üçün şagirdlər dərslik və internet resursları ilə təmin olunurlar. Daha sonra isə kimyəvi təcrübənin aparılması üçün şagirdlər hazırlıq görür. Təcrübə- oksigendən elektrik cərəyanın keçirilməsidir.

Kimyəvi reaksiyanın tənliyi:

$3O_2 \xrightarrow{} 2O_3$

Bu zaman alınan maddənin adı, molekul tərkibi, xassələri şagirdlər tərəfindən deyilir. Şagirdlərin tapa bilmədikləri zaman müəllim özü aydınlaşdırır.

III. Problemin həlli:

Oksigen və ozon molekullarının tərkibi, kütlələrinin müqayisəsi əsasında bu maddə molekullarının xassələri arasındakı fərq izah olunur.

Beləliklə, uşaqlar sinif qarşısında qoyulmuş suallara əsasən oksigen və ozon haqqında əldə etdikləri bilikləri hafizələrində canlandırır, axtarışlar aparır, nəhayət, müəllimin köməyi ilə nəticə çıxarırlar və allotropiya anlayışının tərifi verilir. Göründüyü kimi, problemin həll olunması yeni anlayışın verilməsi ilə sonlanır. Şagirdlər bu məsələnin həlli zamanı kimyəvi eksperimentin nəticəsinə, nəzəri materiallardan oksigenlə ozon molekullarının tərkibi və kütləsinin müqayisəsinə əsaslanırlar.

Oksigen misalında şagirdlərdə bu anlayış haqqında aydın təsəvvür yarandıqdan sonra müəllim allotropik şəkildəyişmələri olan digər elementlərin üzərində dayanır. Bu elementlər aşağıdakı cədvəldə qeyd olunmuşdur:[ M. Abbasov,V. Abbasov,V. Əliyev, G.Quliyeva, N.Abışov, 2018]

| **Kimyəvi element** | **Əmələ gətirdiyi allotropik şəkildəyişmələr** |
|---|---|
| O | $O_2$ , $O_3$ |
| P | Ağ, qara, qırmızı |
| C | Almaz, qrafit, karbin, fülleren |
| S | Kristallik, plastik və s. |
| Si | Kristallik, amorf |

Şagirdlər cədvəl ilə tanış olduqdan sonra başa düşürlər ki, allotropiya anlayışı təkcə oksigenə deyil, başqa kimyəvi elementlərə də aiddir.[ S.M.M. Loyens, S.H. Jones, J. Mikkers, T. Van Gog, 2015]. O, qeyd edir ki, kükürd bir neçe allotropik şəkildəyişmə əmələ gətirir. Bu maddələrin hər birinin quruluşu, xassələri, onlar arasındakı fərqlər və s. izah olunur. Beləliklə, şagirdlərin allotropiya haqqında bilikləri möhkəmlənir, dərinləşir.

**NƏTICƏ**

1) Problemli öyrənmənin əsas məqsədi şagirdlərə tədris prosesində qarşılaşdıqları problemləri həll edərkən öyrəndiklərini sosial həyatda, iş həyatında və s. yaranan çətinlikləri həll edərkən istifadə etmək bacarığını təmin etməkdir.

2) Problemli situasiyanın tez-tez dəyişməsi şagirdlərə yenilikləri təkrar-təkrar nəzərdən keçirməyə imkan verir, beləliklə, onların bilikləri yenilənir.

3) Ölkəmizdə son illərdə xüsusilə populyarlaşan aktiv öyrənmə mühitlərinin yaradılmasında təsirli ola biləcək bir yanaşmadır. Yenidən qurulan təhsildə şagirdlərin yaradıcı təfəkkür bacarıqlarının inkişaf etdirilməsi mühüm məqsəd kimi müəyyən edildiyi üçün demək olar ki, bu yanaşmadan istifadə məqsədə çatmağı asanlaşdıracaqdır.

**ƏDƏBIYYAT SIYAHISI**

1. Young-Eun Kim. (2010). Effect of "Inorganic Chemistry Experiment" class applying problem-based learning (PBL), Journal of the Korean Chemical Society Vol. 54, No: 6 p .771-780
2. M. Abbasov,V. Abbasov,V. Əliyev, G.Quliyeva, N.Abışov.(2018) Kimya 7, dərslik , səh.30
3. M.N.Hüseynov, G.N.İsmayılova, D.N.Əhmədova.(2019). Kimyanin tədrisində problemlilik şagirdlərin idrak fəaliyyətini aktivləşdirən vasitə kimi, Kimya məktəbdə jurnalı 4(68)
4. A.J. Visschers-Pleijers, D. Dolmans, I.H. Wolfhagen, C.P. Van der Vleuten. (2004). Exploration of a method to analyze group interactions in problem-based learning, Med Teach, 26 (5) p. 471-478
5. S.M.M. Loyens, S.H. Jones, J. Mikkers, T. Van Gog. (2015). Problem-based learning as a facilitator of conceptual change, Learn Instr, 38 p. 34-42

# METHODS OF TEACHING WRITING STRATEGIES

**Dr. Khayala Hamidova**
Azerbaijan State Pedagogical University
Philology
xhamidova@bk.ru
Baku, Azerbaijan

**Abstract**

There are a numerous various methods to practise of writing skills both in and outside the classroom. We need to choose the best alternative, deciding wheather we want students to focus more on the process of writing than its product, or wheather we want to learn various styles of writing, or we encourage them to write creatively and how computer can be useful item. We need to aware of the different roles we can and should assume for writing activities. There are times when process writing is simply not appropriate, either because classroom time is limited, or because we want students to write swiftly as part of a communication game, or when working alone, we want them to compose a letter or brief story on the spot. We need to build up creative writing bit by bit, starting with phrases and sentences before expecting whole compositions. The teacher now gets the students to read controversial articles in today's paper and plan letters (using language they have come across in the data collection phase) in response to those articles. Where possible they should actually send their letters in the hope that they will be published. Writing in groups, whether as part of a long process or as part of a short game-like communicative activity,can be greatly motivating for students, including as it does, not only writing, but research, discussion, peer evaluation and group pride in a group accomplishment.

**Key words:** writing approach, drafting, structuring, reviewing, layout

**Açar sözlər:** yazı metodları, ilkin forma, şəkilləndirmə, nəzərdən keçirmə (yoxlama), planlaşdırılma

**Introduction**

In the teaching of writing we can concentrate on the product of that writing or on the writing process itself. When focusing on the product we are only interested in the aim of a task and in the ending of the product. 'Those who advocate a process approach to writing, however, pay attention to the various stages that any piece of writing goes through. By spending time with learners on pre-writing phases, editing, redrafting and finally publishing their work, a process approach aims to get to the heart of the different skills that should be employed when writing.In its simplest formn a process approach asks students to consider the procedure of putting together a good picce of work. We might, for for cxample, discuss the concept of First and final drafts with our students and then ask them to say whether the following activities take place at first or final stages, and to put them in the best order:

a.Check language use (grammar, vocabulary, linkers).
b.Check punctuation (and layout).
c.Check your spelling.
d.Check your writing for unnecessary repetition of of words and/or information
e.Decide on the information for each paragraph, and the order the paragraphs should go in.
f.Note down various ideas.
g.Select the best ideas for inclusion.
h.Write a clean copy of the corected version.
i.Write out a rough version.

In reality, the writing process is more complex than this of course, and the various stages of drafting, reviewing, redrafting and writing, etc. are done in a recursive way: This makes article to be actual in whole meaning. We loop backwards and move forwards between these various stages (Tribble 1997:37-39). Thus at the editing stage we may feel the need to go back to a pre-writing phase and think again; we may edit bits of our writing as we draft it.Ron White and Valerie Arndt are keen to stress that 'writing is re-writing; that revision -seeing with new eyes has a central role to play in the act of creating text'(White and Arndt 1991: 5). In their model, process writing is an interrelated set of recursive stages which include:

-Drafting
-Structuring (ordering information, experimenting with arrangements, etc.)
-Reviewing (checking context, connections, assessing impact, editing)
-Focusing (that is making sure you are getting the message across you want to get across)
-Generating ideas and evaluation (assessing the draft and/or subsequent drafts)

White and Arndt's model can be represented diagramatically, one of the disadvantages of geting students to concentrate on the process of writing is that it takes time: time to brainstorm ideas or collect them in some other way; time to draft a piece of writing and then, with the teacher's help perhaps,review it and edit it in various ways before, perhaps, changing the focus, generating ideas, redrafting, re-editing and so on. This cannot be done in fifteen study minutes.However, the various stages may well involve discussion, research, language and a considerable amount of interaction between teacher and students and between the students themselvess so that when process writing is handled appropriately it stretches across the whole curriculum.

**The methodology of the article**

**Writing methods**

In a genre approach to writing students study texts in the genre they are going to be writing before they embark on their own writing. Thus, if we want them to write ousiness letters of various kinds we let them look at typical models of such letters before starting to compose their own. If we want them to write newspaper articles to we have themn study real cxamples to to discover facts about construction and specific language use which is common in that genre. This forms part of the pre-writing phase.

Chris Tribble (1997: 148-150) suggests the following'data collection' procedure as a prelude to the writing of of letters to newspapers. Students are asked to spend some time every day, for a week, looking at letters to the newspapers. They are asked to make notes of particular vocabulary and/or grammar constructions in the letters. for example we might tell them to find any language which expresses approval or to disapproval,or to note down any if-sentences they come across.They can use dictionaries or any other resources they need to check understanding. At the end of a weck they bring the results of their research to the class and make a list of commonly ocurring iexis or grammar patterns.

The teacher now gets the students to read controversial articles in today's paper and plan letters (using language they have come across in the data collection phase)in response to those articles. Where possible they should actually send their letters in the hope that they will be published.

A genre approach is especially appropriate for students of English for specific purposes. But it is also highly useful for general English students if we want them, even at low levels, to produce written work they can be proud of.

Students who are writing within a certain genre need to consider a number of different factors. They need to have knowledge of the topic, the conventions and style of the genre, and the context in

which their writing will be read, and by whom. Many of our students' writing tasks do not have an audience other than the teacher,of course, but that does not stop us and them working as if they did.

Asking students to imitate a given style could be seen as extremely prescriptive.Encouraging them to see writing as a form of 'reproduction' rather than as a creative act. Imitation is only a first stage, however,designed as much to inform as to enforce adherence to strict genre rules.In the end it is up to them to decide what to do with the data they have collected. (however this has been done).

Creative writing

The term 'creative writing suggests imaginative tasks such as writing poetry, stories, and plays. Such activities have a number of features to recommend them. Chief amongst these is that the end result is often felt to be some kind of achievement,and that 'most people feel pride in their work and want it to be read' (Ur 1996: 169).This is significantly more marked for creative writing than for other more standard written products.

Creative writing is 'a journey of self-discovery, and self-discovery promotes effective learning` (Gaffield-Vile 1998: 31). When teachers set up imaginative writing tasks so that their students are thoroughly engaged, those students frequently strive harder than usual to produce a greater variety of correct and appropriate language than they might for more routine assignments. While students are writing a simple poem about someone they care about, or while they are trying to construct a narrative or tell stories of their childhood, for example, they are tapping into their own experiences. This provides powerful motivation to find the right words to express such experience.

In order to bolster the 'product pride' that students may feel when they have written creatively, we need to provide an appropriate reader audience. Apart from ourselves as teachers, the whole class can also be such an audience. We can put as students' writing up on a class noticeboard, or copy it and include it in class magazines. We can make anthologies and distribute them to friends, parents, and other teachers; we can, if we want, set up web sites for our classes on the Internet.

4. Fiziki fəaliyyətlər: universitet tərəfində təşkil edilən fiziki fəaliyyətlər, tələbələrin psixoloji və fiziki sağlamlığını inkişaf etdirməyə kömək edir. Regulyar olaraq həyata keçirilən idman təlimləri, qrup idmanları, tələbələrin stresslə mübarizə etmələrində və psixoloji sağlamlıqlarını inkişaf etdirmələrində onlara yardım edir.

5. Sosial dəstəkləşmə və tələbə birlikləri: tələbələrin bir-biriləri ilə əlaqələr qurduqları sosial dəstəkləşmə qrupları və tələbə birlikləri, tələbələrin psixoloji sağlamlığını dəstəkləyir və onların ruh sağlamlığını artırır. Bu birliklər, tələbələr arasında dostluq və dəstəkləşmə mühitini təmin edir və hər hansı bir problemin üstəsində birgə gəlməyə kömək edir.

Bu tədbirlər, tələbələrin psixoloji vəziyyətlərini dəstəkləmək və ruh sağlamlığını inkişaf etdirmək üçün effektivdir.

# «РОЛЬ ОБРАЗОВАТЕЛЬНОЙ СРЕДЫ В ФОРМИРОВАНИИ ОТНОШЕНИЙ К ПРИРОДЕ У МЛАДШИХ ШКОЛЬНИКОВ»

**Бадирова Фатима Алекбер гызы**
Специальность «Методика и методология начального образования»
faaslanova97@gmail.com
Научный руководитель: док. фил. доц. Н. А. Султанова

**Аннотация**

Статья подчеркивает важность комплексного подхода в формировании отношений младших школьников к природе. Этот подход включает интеграцию экологического образования в различные учебные предметы, организацию практических занятий, направленных на решение реальных экологических проблем, и воспитание уважительного отношения к окружающей среде через различные образовательные мероприятия. Кроме того, отмечается роль образовательной среды в развитии критического мышления, необходимого для понимания современных экологических вызовов, и в формировании активной гражданской позиции в отношении защиты окружающей среды.

Подчеркивается, что эффективное экологическое образование требует создания поддерживающей, стимулирующей и привлекательной образовательной среды, которая может мотивировать учащихся активно участвовать в экологической деятельности и развивать образ жизни в гармонии с природой. Это включает не только теоретическое обучение, но и развитие практических навыков, эмоциональное вовлечение и личностное развитие каждого ученика.

**Ключевые слова:** природа, окружающая среда, воспитательный процесс, формирование, отношение.

**"TƏHSİL MÜHİTİNİN KİÇİK MƏKTƏBLİ UŞAQLARIN TƏBİƏTƏ MÜNASİBƏTİNİN FORMALAŞMASINDAKI ROLU."**

**Xülasə**

Məqalədə kiçik yaşlı məktəblərin təbiətlə münasibətlərin formalaşmasındakı rolu haqqında annotasiya kompleks yanaşmanın əhəmiyyətini vurğulanır. Bu yanaşma müxtəlif tədris fənlərinə ekoloji təhsilin inteqrasiyasını, real ekoloji problemlərin həllinə yönəlmiş praktiki məşğələlərin təşkilini və müxtəlif təhsil fəaliyyətləri vasitəsilə ətraf mühitə hörmətli münasibətin tərbiyəsini əhatə edir. Həmçinin, təhsil mühitinin müasir ekoloji çağırışların dərk edilməsi üçün zəruri olan tənqidi düşüncənin inkişafındakı və ətraf mühitin qorunması sahəsində fəal vətəndaş mövqeyinin formalaşdırılmasındakı rolu qeyd edilir.

Effektiv ekoloji təhsilin, şagirdləri ekoloji fəaliyyətə fəal iştiraka və təbiətlə uyğun yaşam tərzinin formalaşdırılmasına motivasiya edə bilən dəstəkləyici, stimullaşdırıcı və cəlb edici təhsil mühitinin yaradılmasını tələb etdiyini vurğulayır. Bu, yalnız nəzəri təlimi deyil, həm də praktiki bacarıqların inkişafını, emosional cəlb olunmanı və hər bir şagirdin şəxsi inkişafını əhatə edir.

**Açar sözlər:** təbiət, ətraf mühit, tərbiyyə prosesi, formalaşdırma, münasibət.

**"THE ROLE OF THE EDUCATIONAL ENVIRONMENT IN SHAPING ATTITUDES TOWARDS NATURE IN YOUNG SCHOOLCHILDREN."**

**Summary**

The article emphasizes the importance of a comprehensive approach in shaping young schoolchildren's relationships with nature. This approach encompasses the integration of environmental education into various teaching subjects, the organization of practical activities aimed at solving real environmental problems, and the cultivation of respectful attitudes towards the environment through various educational activities. Additionally, the role of the educational environment in developing critical thinking necessary for understanding modern ecological challenges and in shaping an active citizen's stance towards environmental protection is noted.

It highlights that effective environmental education requires the creation of a supportive, stimulating, and engaging educational environment that can motivate students to actively participate in ecological activities and to develop a lifestyle in harmony with nature. This involves not only theoretical teaching but also the development of practical skills, emotional engagement, and the personal development of each student.

**Key words:** nature, environment, educational process, formation or development, attitude.

Отношение к природе формируется не в один момент, а является результатом многогранной и систематической работы, включающей в себя как теоретическое обучение, так и практическую деятельность. Рассмотрим более подробно ключевые направления этой работы.

Интеграция экологического образования в учебные планы и программы является основополагающей. Это не только означает добавление специализированных курсов по экологии, но и включение экологических аспектов в изучение традиционных дисциплин, таких как биология, география, химия, социальные науки и даже история. Это позволяет учащимся видеть связи между различными областями знаний и понимать мультидисциплинарный характер экологических проблем. [1]

Проектно-ориентированное обучение позволяет учащимся применять теоретические знания на практике, работая над реальными проблемами. Создание и реализация проектов, направленных на улучшение экологической ситуации в школе, на местном уровне или в глобальном масштабе, не только способствует развитию критического мышления и командной работы, но и воспитывает чувство ответственности за будущее планеты.

Воспитательная работа, включающая экологическое волонтёрство, акции по озеленению, сбору и переработке отходов, играет важную роль в формировании экологической культуры. Такие мероприятия помогают учащимся осознать свою личную ответственность и вклад в охрану окружающей среды. Исходя из практики, могу сказать, в 2023 году мы с шестыми классами, на Шихово провели акцию «Защита окружающей среды». Вместе с учащимися шестых классов, очищали побережье Каспийского моря, обсуждали вред загрязнения экологии, путём не разлагаемых предметов. [2]

Современные образовательные технологии, включая интерактивные приложения, виртуальные лаборатории, онлайн-курсы и игры, делают процесс обучения более увлекательным и доступным. Эти технологии могут помочь учащимся лучше понять сложные экологические процессы и последствия человеческой деятельности на окружающую среду.

Важной частью образовательного процесса является организация экскурсий и практических занятий в природе, которые позволяют учащимся непосредственно взаимодействовать с окружающей средой. Такой опыт способствует развитию глубоких личных чувств и эмоциональной связи с природой, которая является мощным мотиватором для последующих экологически сознательных действий.

Создание в образовательных учреждениях атмосферы, способствующей экологически устойчивому образу жизни, является важным аспектом формирования отношения к природе. Это включает в себя практики бережного использования ресурсов, организацию зеленых зон, установку систем раздельного сбора отходов и многое другое. Создание такой среды способствует воспитанию у учащихся привычек, благоприятных для окружающей среды, которые они могут перенести в свою взрослую жизнь.

В целом, образовательная среда, ориентированная на формирование у учащихся глубокого понимания экологических проблем и активной позиции по их решению, является ключевым фактором в развитии устойчивого будущего.

Гасан Мамедов, занимаясь вопросами образования и его влияния на формирование личности, особое внимание уделяет роли образовательной среды в развитии отношений к природе. Он подчеркивает, что образовательная среда не просто способствует приобретению знаний, но и формирует ценностные ориентиры, взгляды и отношения учащихся, включая их взаимодействие с окружающей природной средой.[4]

В контексте его исследований, можно выделить несколько ключевых аспектов, через которые образовательная среда влияет на формирование отношений к природе:

1. **Ценностное воспитание:** Образовательная среда влияет на формирование ценностей и этических норм в отношении природы, воспитывая у учащихся уважение и ответственность за окружающую среду.

2. **Практическая деятельность:** Включение практических занятий, таких как экологические проекты, исследования и экскурсии, позволяет учащимся непосредственно

взаимодействовать с природой, что способствует формированию более глубокого и осмысленного отношения к ней.

3. **Интеграция экологического образования:** Внедрение экологических знаний и принципов устойчивого развития в различные учебные дисциплины помогает учащимся понимать сложность и взаимосвязанность природных процессов и человеческой деятельности.

4. **Создание поддерживающей среды:** Образовательные учреждения могут создавать среду, которая поощряет экологически ответственное поведение, например, через организацию мероприятий по улучшению окружающей среды, раздельный сбор отходов и экономию ресурсов.

5. **Развитие критического мышления:** Способность критически анализировать экологическую информацию и новости, различать научные факты от мифов и дезинформации, что является важным элементом экологического образования и формирования сознательного отношения к природе.

Мамедов подчеркивает, что образовательная среда должна быть многоаспектной, включая не только передачу знаний, но и развитие навыков, формирование ценностей и стимулирование активного участия в экологически значимых практиках. Такой подход способствует формированию у обучающихся целостного и ответственного отношения к окружающей природной среде.

Заключение к теме "Роль образовательной среды в формировании отношений к природе" подчеркивает важность интегрированного и целостного подхода в образовании, который не только передает знания, но и формирует у учащихся глубокое понимание, уважение и ответственность по отношению к окружающей природной среде. Вот ключевые моменты, которые могут быть выделены в заключении:

Формирование экологической сознательности: Образовательная среда играет критическую роль в развитии экологической осведомленности и сознательности учащихся, предоставляя им знания, навыки и ценности, необходимые для понимания и решения современных экологических проблем.

Развитие устойчивых поведенческих паттернов: через разнообразные образовательные программы и практики, учащиеся учатся принимать ответственные решения, которые способствуют защите и сохранению природы, формируя таким образом основу для устойчивого будущего.

Интеграция практического опыта: Непосредственное взаимодействие с природой через экскурсии, наблюдения и экологические проекты углубляет понимание учащимися экологических процессов и укрепляет их связь с окружающей средой.

Мультидисциплинарный подход: Образовательная среда, объединяющая различные дисциплины, способствует формированию комплексного взгляда на экологические вопросы, позволяя учащимся видеть междисциплинарные связи и целостность природных систем.[5]

Воспитание ответственности и активной гражданской позиции: Учащиеся приобретают не только знания, но и развивают чувство ответственности за окружающую среду, что мотивирует их к активным действиям по ее защите и улучшению.

В заключение, роль образовательной среды в формировании отношений к природе несомненно велика и многогранна. Она заложена не только в передаче знаний, но и в развитии ценностей, формировании навыков и стимулировании активной жизненной позиции, направленной на устойчивое взаимодействие с природой. Создание такой образовательной среды требует совместных усилий учителей, родителей, образовательных администраторов и всего общества.[3]

**Литература:**

1. Р. Р. Алиева и Ш. Г. Хасанова "Формирование экологической культуры у младших школьников в условиях природопользования". Журнал "Наука и образование".

2. Глазунова О.В., Маркова Л.А. Формирование у младших школьников готовности к экологической деятельности через систему экологических знаний и умений // Образование и наука. 2019. № 4 (34). С. 101-109.

3. Конева И.В., Потехина Е.А. Экологическое воспитание младших школьников как фактор формирования их нравственного отношения к природе // Современные проблемы науки и образования. 2017. № 5. С. 89-93.

4. Г. М. Мамедова и С. Г. Рзаева "Педагогические условия формирования экологической культуры у младших школьников".

5. Kellert, S. R. (2005). Building for life: Designing and understanding the human-nature connection. Island Press.

# CİZGİ FİLMLƏRİN DÜZGÜN DUBLYAJ OLUNMAMASININ AZYAŞLI QRUPUNUN NİTQİNDƏ YARATDIĞI PROBLEMLƏR

**Qafar Ocaqlı**
Bakı Mühəndislik Universiteti
Ümumi fənlər kafedrası
qocaqli@beu.edu.az

**Nilufər Ocaqlı**
Bakı Qızlar Universiteti
Filologiya-tarix
1nilojagli@gmail.com
BAKI, AZƏRBAYCAN

**XÜLASƏ**

Kütləvi informasiya vasitələrində yayımlanacaq medianın səs aktyorları tərəfindən tərcümə edilməsi prosesi dublyaj adlanır. Bu gün insanlar dillərini bilmədiyi ölkələrin filmlərini məhz dublyaj vasitəsilə izləyirlər. Müxtəlif media nümunələri (filmlər, xəbərlər, seriallar, cizgi filmlər) dublyaj olunaraq yerli kanallarda nümayiş olunur. Məlum məsələdir ki, yerli kanallarımızda dublyaj o qədər də keyfiyyətli deyil. Bu səbəbdən insanlar çıxış yolu olaraq filmə bildikləri digər dildə (məsələn, türk dilində) dublyaj versiyasına baxmağı üstün tuturlar. Lakin azyaşlı qrupu üçün eyni şeyi söyləmək olmaz, onlar körpədir. Təəssüf ki, yerli kanallarımızda uşaqlar üçün öyrədici, tərbiyəedici, onların yaşlarına uyğun cizgi filmlər çox azdır. Bunun nəticəsi olaraq, valideynlər uşaqlarına ya xarici cizgi filmləri izlədir, ya da ümumiyyətlə cizgi filmə baxmağa icazə vermir. Əslində isə cizgi filmlərin uşaqlar üçün oynadığı müsbət xüsusiyyətlər o qədər də az deyildir.

**Açar sözlər:** Cizgi film, dublyaj, media

## GİRİŞ

İlk öncə cizgi filmlərin uşaqlar üçün yararlarından bəhs edək. Cizgi filmlər uşaqların dil bacarıqlarını inkişaf etdirmək üçün yararlı mənbə hesab olunur. Valideynin xüsusi nəzarəti olduğu təqdirdə kiçik yaşdakı uşaqlar cizgi filmlərin vasitəsilə rənglər, rəqəmlər kimi konseptləri tək öyrənə bilirlər. Xülasədə qeyd etdiyimiz kimi, yerli kanallarımızda nümayiş olunan cizgi filmlərin yetərsizliyindən valideynlər xarici cizgi filmləri övladlarına izlətməyi üstün tuturlar. Xarici cizgi filmlərin isə bir sıra mənfi cəhətləri mövcuddur. Məsələn:

- ***Lüğət tərkibi***

Xarici dizgi film izləyən uşaqların baza lüğət tərkibi doğma ana dilinin baza lüğət tərkibindən olduqca fərqlənir. Uşaq istəyini ifadə etmək üçün lazım olan ən sadə sözləri xarici dildə ifadə edir, bu isə onun evdə, bağçada, dostlarının arasında çətinlik çəkməsinə səbəb olur. Uşağın kiçik yaşda başqa dilə aid söz öyrənməyi yaxşı haldır, lakin qeyd olunan çətinliklərlə qarşılaşan zaman bunun nə qədər

yaxşı hal olduğu sual altında qalır. Məsələn, təyyarə sözünün "uçak", çərpələng sözünün "uçurma" və s. kimi sözlərlə əvəz olunduğunu və bir çox halda öz ana dilində bu sözləri bilmədikləri görülməkdədir.

- ***Tələffüz və aksent***

Davamlı şəkildə xarici dildə cizgi filmə baxan uşaqda həmin dilə xas tələffüz şəkli meydana gəlir. Uşaq bu tələffüz şəklini doğma dilində bildiyi sözlərə də tətbiq edir və onda təmamilə fərqli bir danışıq şəkli meydana çıxır. Bu da uşağın fikrini ana dilində ifadə etməsi üçün çox böyük əngəldir. Bəzən də yerli studiyalarda dublyaj olunan cizgi filmlərin ədəbi dil normalarından tamam fərqli şəkildə dublyaj edildiyinin şahidi oluruq. Bunun nəticəsi isə o olur ki, uşaqlar öz ana dilində şivə ilə danışmağa başlayır.

- ***Mədəniyyət fərqi***

Məlumdur ki, xarici cizgi filmlər aid olduğu ölkənin mədəniyyətini müəyyən qədər əks etdirir. Bu faktın açılışını nümunə üzərindən vermək daha məqsədəuyğun olar. Məsələn, cizgi filmdə Pasxa bayramının və ya "Halloven" adlanan "İfritələr bayramı"nın keçirilməsinə baxan uşaq elə düşünür ki, bu bayram onun ölkəsində də keçirilir. Və yaxud cizgi film qəhrəmanının evə ayaqqabı ilə girdiyini görən uşaq bunda yanlış bir şey olmadığını düşünür. Bütün bunlar uşaqlarda öz mədəniyyətlərinə qarşı maraqsızlıq yarada bilər.

- ***Cümlə quruluşu***

Xarici cizgi filmlərin gətirdiyi problemlərdən biri də uşaqların yanlış cümlə quruluşu ilə danışmasıdır. Uşaq davamlı şəkildə xarici cizgi film izlədikcə ana dilində fikrini ifadə edərkən həmin dilə aid cümlə sırası ilə danışır. Məsələn, "mən evə gedirəm" əvəzinə "gedirəm mən evə" deyir. Bu isə onun doğma dilində səlis danışmasına, qrammatikanı və dil qaydalarını düzgün öyrənməsinə böyük maneə törədir.

- ***Gec danışma***

Uşaq fikrini səhv ifadə etdikcə onda bir növ özgüvənsizlik meydana gəlir və fikrini ifadə etməkdən boyun qaçırır, yəni fikrini səhv ifadə etməkdənsə, ifadə etməməyi üstün tutur. Bu isə bir müddən sonra onda danışmamaq istəyi yaradır.

- ***Çıxış yolu***

Problemin həlli istiqamətində dönüş yaratmaq üçün dublyaj sahəsinə ciddi yatırımların olunması əsas şərt kimi dayanır. Dublyaj olunmuş cizgi filmi və ya film:

a. Hədəf auditoriyaya mətni daha yaxşı anlamağa kömək edir;
b. Ana dilinin qorunub-saxlanılması, inkişafı istiqamətində əhəmiyyətli rol oynayır;
c. Dublyaj, bir dilin və ya mədəniyyətin səsi ilə tərcümə olunan məzmunu digər mədəniyyətlərə təqdim edir.

**TƏDQİQAT METODU**

Bu tədqiqatın aparılmasında analiz və sintez üsullarından istifadə olunmuşdur.

**NƏTİCƏ**

Nəticə olaraq bunu qeyd edə bilərik ki, yuxarıda sadaladığımız bütün bu hallar yerli media nümunələrimizin az olmasından və düzgün dublyaj olunmamasından irəli gəlir. Düşünürük ki, yerli kanallarımızda nümayiş etdirmək üçün xarici cizgi filmlərə müraciət etməkdənsə, öz cizgi filmlərimizi nümayiş etdirmək daha məqsədəuyğun olar. Təbii ki, bunun üçün ilk öncə öyrədici və tərbiyəedici, milli mənsubiyyətləri özündə mühafizə edən, düzgün danışıq çərçivəsində dialoqları olan bir cizgi filmə ehtiyac duyulur.

**ƏDƏBİYYAT SİYAHISI**

1. S.M. Əliyeva, T.H.Ağayeva – "Loqopediyanın nəzəri-praktik məsələləri". Bakı-1999
2. İlahə Əsgərova – "Məktəbəqədər yaşlı uşaqlarda nitq qüsurlarının etologiyası".

# ÇOXDİLLİLİYİN FORMALAŞMASI: İKİNCİ VƏ ÜÇÜNCÜ DİLLƏRİN MƏNİMSƏNİLMƏSİ

**PƏRVANƏ BAĞIROVA**
Azərbaycan Dillər Universiteti, Doktorant
Bakı Biznes Universiteti, Müəllim
*parvana13baghirova@gmail.com*
BAKI, AZƏRBAYCAN

**Xülasə**

Çoxdillilik müəyyən bir cəmiyyətin və ya fərdin birdən çox dildən istifadə etməsi nəticəsində yaranır. Ümumiyyətlə, çoxdillilik qlobal bir fenomendir və getdikcə qloballaşan dünyada onun nəzəri əsaslarının sistemli şəkildə tədqiqi vacib əhəmiyyət kəsb edir. Çoxdilliliyin araşdırılmasına müxtəlif cəhətdən yanaşmalar mövcuddur ki, onlardan ən vacibi və maraq doğuran tərəfi çoxdilliliyin sosiolinqvistikada qoyuluşudur. Bu fenomenin araşdırılması ilə bağlı bir sıra tədqiqatlar mövcuddur. Bu məqalədə isə çoxdilliliyin formalaşmasında mühüm əhəmiyyət kəsb edən ikinci və üçüncü dillərin mənimsənilməsi məsələsinə nəzər yetirilmişdir. İkinci və üçüncü dillərin mənimsənilməsinə şərait yaradan bir sıra amillər mövcuddur. Bu məqalədə çoxdilliliyin formalaşmasına birbaşa təsir göstərən bu amillər araşdırılmış, eyni zamanda, məqalədə çoxdilliliyin formalaşma şəraiti ilə bağlı müvafiq nümunələr də göstərilmişdir.

**Açar sözlər:** sosiolinqvistika, çoxdillilik, ikinci dilin mənimsənilməsi, üçüncü dilin mənimsənilməsi

**FORMATION OF MULTILINGUALISM: THE SECOND AND THIRD LANGUAGE ACQUISITION**

**Abstract**

Multilingualism occur when a certain society or individuals use more than one language. In general, multilingualism is a global phenomenon and in an increasingly globalized world it is of vital importance to investigate its theoretical basis systematically. There are various approaches to the investigation of multilingualism, however, the most important and intriguing aspect is how multilingualism is well-defined in sociolinguistics. There are a number of researches related to the investigation of this phenomenon. However, this article gives serious consideration to the issue of the second and third language acquisition which is of great importance in the formation of multilingualism. There are a number of factors that account for the second and third language acquisition. This article discusses these factors which have a direct impact on the formation of multilingualism, at the same time, the relevant examples concerning the condition of the formation of multilingualism are demonstrated in this article.

**Keywords:** sociolinguistics, multilingualism, second language acquisition, third language acquisition

## Giriş

Dünya üzrə nə qədər dil mövcuddur? Ən çox və yaxud ən az dil hansı ölkədə danışılır? Dil müxtəlifliyi dünya üzrə bütün ərazilərdə eynidirmi? Əgər eyni deyilsə, bunun səbəbi nədir? Dünya üzrə birdən çox dildə danışanların sayı nə qədərdir? Nəyə görə onlar birdən çox dildən istifadə edirlər? Bəs bura hansı amillər daxildir? Bütün bu suallara cavab tapmaq çoxdilliliklə bağlı tədqiqatların mərkəzində durur. Çoxdillilik ayrı-ayrı fərdlərin və ya hər hansı bir ölkədə cəmiyyətin birdən çox dildən istifadə etməsi nəticəsində yaranır. Globallaşan dünyada çoxdillilik öz aktuallığını qoruyub saxlayan mövzulardan biridir. Çoxdillilik terminin mənalandırılması ilə bağlı fərqli fikirlər olsa da, nəticə etibarı ilə onlar eyni məna və məzmuna gəlib çıxır: "Çoxdilli şəxs istər aktiv (danışaraq və yazaraq), istərsə də passiv (dinləyərək və oxuyaraq) şəkildə ünsiyyət qura bilən şəxsdir" (Wei, 2008). "Çoxdillilik cəmiyyətin, qrupların, fərdlərin mütəmadi olaraq gündəlik həyatlarında birdən çox dildən istifadə etmək bacarığıdır" (The European Commission, 2007). Onu da qeyd etmək lazımdır ki, yalnız bir dildən istifadə edən şəxs tapmaq demək olar ki, çətindir. Hər bir şəxs bu və ya digər dərəcədə ən

azı iki dildən müəyyən məqsədlər üçün istifadə edir. Həmin məqsədlər ünsiyyətdə iştirak edən tərəflərdən, situasiyadan asılı ola bilər.

Məqalənin strukturuna giriş, tədqiqatın metod və metodologiyası, məsələnin müzakirəsi, nəticə və ədəbiyyat siyahısı daxildir.

**Tədqiqat metodu**

Qarşıya qoyulmuş məsələnin araşdırılmasında müxtəlif ədəbiyyat və materiallara əsaslanaraq, ümumiləşdirmə, analoq və tipoloji yanaşma kimi nəzəri tədqiqat üsullarından istifadə edilmişdir.

İkinci dilin mənimsənilməsi ilə fərddə ikidillilik - bilinqvizm, üçüncü dilin mənimsənilməsi ilə isə çoxdillilik formalaşmış olur. Bu müxtəlif səbəblərdən baş verə bilər. İlk növbədə ailə faktoru mühüm rol oynayır. Belə ki, valideynlərdən birinin fərqli millətə məxsus olması ilə uşaq ikinci dili öyrənməli olur. Buna baxmayaraq, onu da qeyd etmək lazımdır ki, çoxdilliliyin formalaşmasında təkcə ailə faktoru olmaya da bilər. Valideynlər fərqli millətlərə mənsub olmasa belə biz burada ikinci və üçüncü dilin mənimsənilməsindən danışa bilərik. Burada artıq, dil siyasəti, qloballaşan dünyada ünsiyyət vasitəsi kimi bəzi dillərin daha çox işlək olması və əmək bazarında tələb olunması kimi məsələlərdən də söhbət açılmalıdır.

Qeyd olunduğu kimi, ölkənin apardığı dil siyasəti də bu və ya digər dərəcədə ikinci dilin mənimsənilməsi ilə birbaşa bağlıdır. Belə ki, təhsil sisteminin tələbindən irəli gələrək ikinci dilin öyrənilməsinə zərurət yaranır. Aparılan dil siyasətinin özü isə sosial, mədəni, siyasi və iqtisadi amillərlə bağlı ola bilər. Sosial amil dedikdə, müxtəlif dilli qruplar arasında bərabərliyin təmin olunması başa düşülür. Mədəni amil dedikdə, mədəni müxtəlifliyin ölkədə qorunub saxlanılması ilə əlaqədardır. Siyasi amil dövlətin apardığı siyasətlə birbaşa bağlıdır və məhz elə maraqlı tərəf də odur. Məsələn, seçkilərdə daha çox tərəfdaş toplamağa çalışmaq məqsədilə ilə çoxdilliliyin ön plana çəkilməsi ilə bağlı hər hansı plan irəli sürülə bilər. Bununla da, fərqli millətlərdən olan insanların dəstəyi əldə edə bilər. Bundan başqa, cəmiyyətin inkişafı, eyni bir coğrafi məkanda yaşayan müxtəlif xalqlar arasında kontaktın yaranması və inkişafı ikidilliliyin yaranmasına gətirib çıxarır.

Çoxdilliliklə bağlı aparılan dövlət siyasətinə dövlətin birdən çox rəsmi dil qəbul etməsi, ölkədə danışılan bütün dillərə dəstək olmaq məqsədilə qəzetlərin, televiziya və radio proqramlarının həmin dillərdə olması, çoxdilliliyi təşviq etmək məqsədilə təhsil proqramlarının hazırlanması, həmin dillərdə tədrisin təşkili kimi strategiyaları aid etmək olar.

Artıq mövcud olan ikidillilik şəratində üçüncü bir dilin mənimsənilməsi üçün də şərait yarana bilər. Məsələn, ikidillilik şəraitində ailə digər bir ölkəyə köç etdikdə, bu zaman üçüncü bir dilin mənimsənilməsi məsələsi ortaya çıxacaqdır. Başqa bir ölkəyə miqrasiya, yəni köç etməyin səbəbi həyat şəraitinin yaxşılaşdırılması, təhsillə bağlı ola bilər.

Ümumilikdə, miqrasiyanın əsas səbəbləri kimi "push-pull factors", yəni təkandan və cəzbetmədən ibarət olan "ikitaktlı amillər" göstərilir və miqrasiya prosesi də məhz bu model vasitəsilə analiz edilir (Nəsibov, 2014). Təkan insanların məcburiyyətdən hər hansı bir ölkəyə getməyi üçün əsas rol oynayan amildir. Burada öz növbəsində sosial və siyasi, demoqrafik, iqtisadi və ekoloji səbəblərə rast gəlmək olar. Bütün bu amillər onların ölkəni tərk etməsinə gətirib çıxarır. Cəzbedici amillər isə, daha çox insanları ölkəyə gəlməyə sövq edən amilərdəndir. Məsələn, daha yaxşı həyat şəraiti əldə etmək üçün vətəndaş hər hansı bir ölkəyə köç edə bilər.

Çoxdilliliyin mənimsənilməsi ilə bağlı bir sıra maraqlı tədqiqatlar mövcuddur. Tarixi linqvistika və sosiolinqvistika üzrə apardığı tədqiqatlarla tanınan amerikalı dilçi Suzanne Romanie tərəfindən uşaqlıqdan çoxdilliliyin mənimsənilməsi ilə bağlı irəli sürülən tipologiyaya nəzər yetirək: (Romaine, 1995).

**Birinci tip.** Bir fərd - bir dil. Valideynlər fərqli millətlərin nümayəndələridir. Bu cür situasiyada valideynlərin hər biri uşaq doğulandan bəri onunla öz ana dilində danışırlar. Hər iki valideynin ana dili fərqlidir. Valideynlərdən birinin ana dili isə yaşadıqları ölkədə istifadə olunan dildir. Məsələn, ana Azərbaycan dilində, ata isə fransız dilində danışır və onlar Fransada yaşayırlar.

**İkinci tip.** Bir dil - bir mühit. Bu cür situasiyada ailədə danışılan dil kənarda ünsiyyət vasitəsi kimi istifadə olunan dil ilə üst-üstə düşmür. Məsələn, ana Azərbaycan dilində, ata isə fransız dilində danışır. Onlar Fransada yaşayırlar. Ailədə isə, fransız deyil, Azərbaycan dili valideynlər tərəfindən daha çox istifadə olunur. Buna baxmayaraq, uşaq erkən yaşdan artıq fransız dilindən istifadəyə də məruz qalır.

**Üçüncü tip.** Valideynlərin hər ikisi eyni dildə danışır. Ailədə işlək olan bu dil onların yaşadıqları ölkədə istifadə olunan dil deyil. Buna baxmayaraq, valideynlərin istifadə etdiyi dil bu və ya digər dərəcədə yaşadığı qonşuluq ərazisində istifadə olunur. Uşaq isə məktəbə getməyə başlayanda cəmiyyətdə hər kəs tərəfindən qəbul olunan dili mənimsəməyə başlayır. Məsələn, valideynlər ABŞ-a köç edən meksikalı miqrantlardır. Onlar ispandilli əhalinin üstünlük təşkil etdiyi, eyni zamanda öz yerlilərinin olduğu ərazidə yaşayırlar.

**Dördüncü tip.** Ailədə işlək olan iki fərqli dil mövcuddur və həmin dillər ailənin qaldığı ölkədə istifadə olunan dil deyil. Hər iki valideyn evdə uşaqla ünsiyyət qurarkən öz ana dillərində danışır. Onların ana dilləri müəyyən dərəcədə yaşadıqları ərazidə istifadə olunur. Uşaq isə məktəbə getməyə başlayanda cəmiyyətdə hər kəs tərəfindən qəbul olunan dili mənimsəməyə başlayır.

**Beşinci tip.** Ailədə valideynlərdən biri öz ana dilindən istifadə etmir. Valideynlər eyni dildə danışır və bu dil qaldıqları mühitdə geniş şəkildə işlənən dildir. Valideynlərdən biri özlərinin ana dili olmayan fərqli bir dildə uşaqla ünsiyyət qurur. Məsələn, hər iki valideyn rus dilində danışır və onlar Azərbaycanda yaşayırlar. Ana öz uşağı ilə ingilis dilində də danışır.

**Altıncı tip.** Dil kodunun dəyişməsi. Bu cür situasiya o zaman baş verir ki, valideynlərin hər ikisi çoxdilli olsun. Ümumilikdə, çoxdillilik onların qaldığı mühitdə də geniş yayılan bir amildir. Hər iki valideyn müntəzəm olaraq uşaqları ilə ünsiyyətdə birdən çox dildən istifadə edir.

Yuxarıda göstərilən tipologiya fərdi və kollektiv çoxdilliliyin formalaşmasına aid edilir. Üçüncü, dördüncü və altıncı tiplərə nəzər yetirsək, burada situasiya bir az fərqlidir. Belə ki, burada fərdi çoxdilliliklə yanaşı, kollektiv çoxdillilik də özünü göstərir. Buna görə də mənimsənilən ikinci və üçüncü dillərin işlək olması və inkişaf etdirilməsi üçün şərait və imkan mövcud olacaqdır. Birinci, ikinci və altıncı tiplərə nəzər yetirsək, görərik ki, burada, əsasən, fərdi çoxdillilik səciyyəvidir. Şəraitdən asılı olaraq, hansı dilə daha çox məruz qalsaq, o dildən istifadə daha geniş olacaq, mənimsənilən digər dillərdən istifadə üçün isə şərait məhdud olacaqdır. Onu da qeyd etmək lazımdır ki, təbii olaraq, bu tipologiya fərqli situasiyaları nəzərə aldıqda müəyyən modifikasiyalara uğraya bilər və bunun araşdırılması da vacibdir. Ümumilikdə, tipologiyaya diqqətlə nəzər yetirsək, görərik ki, bütün tiplərdə çoxdilliliyin formalaşması üçün kifayət qədər geniş şərait mövcuddur.

**Nəticə**

Çoxdilliliyin formalaşmasında rol oynayan amillər müxtəlifdir. Çoxdilliliyin yaranması ikinci və üçüncü dillərin mənimsənilməsi ilə birbaşa bağlıdır. Aparılan araşdırmadan belə bir nəticəyə gəlmək olar ki, çoxdilliliyin yaranmasında başlıca amillər fərqli millətlərdən olan şəxslərin ailə qurması və miqrasiyadır. Təbii olaraq, ikinci və üçüncü dillərin mənimsənilməsi zamanı hər bir fərddə fərqli motivləşdirici amillər də əsas rol oynaya bilər. Ümumiyyətlə, bu cür amilləri nəzərə almaqla müxtəlif cəmiyyətlərdə çoxdilliliyin araşdırılması maraq doğuran və vacib bir məsələdir.

**Ədəbiyyat siyahısı**

1. Nəsibov, E. (2014). Miqrasiyanın əsasları. Miqrasiologiya. Miqrasiya prosesləri. Dünya miqrasiya mərkəzləri. I Kitab. Bakı, "Elm və Təhsil" nəşriyyatı, 68.

2. Bardel, C. and Sánchez, L. (eds.). (2020). Third language acquisition: Age, proficiency and multilingualism. (EuroSLA Studies 3). Berlin: Language Science Press. DOI: 10.5281/zenodo.4138753

3. Cenoz, J. and Jessner, U. (2000). English in Europe: The Acquisition of a Third Language, Multilingual Matters, Clevedon.

4. Deumert, A. (2011). 15 - Multilingualism from Part IV Multilingualism and language contact. The Cambridge Handbook of Sociolinguistics. DOI: https://doi.org/10.1017/CBO9780511997068.021. Publisher: Cambridge University Press, 261-282.

5. European Commission. 2007. Final Report: High Level Group on Multilingualism. Luxembourg: Office for Official Publications of the European Communities. Retrieved from https://op.europa.eu/en/publication-detail/-/publication/b0a1339f-f181-4de5-abd3-130180f177c7

6. Wei, L. (2008). Research perspectives on bilingualism and multilingualism. In Li Wei & Melissa G.Moyer (eds.), The Blackwell Handbook of Research Methods on Bilingualism and Multilingualism. Oxford: Blackwell, 3-17.

7. Romaine, S. (1995). Chapter 5 The bilingual child. Bilingualism. 2nd edn. Oxford: Balckwell, 183-85.

# AUTİZMLİ UŞAQLARIN MƏKTƏBƏHAZIRLIQ MƏRHƏLƏSİNDƏ AİLƏNIN ROLU

**EYNALOVA AYTƏN SURXAY QIZI**
Azərbaycan Dillər Universiteti
Pedaqogika fakültəsi
*aytenhamza@hotmail.com*
BAKI, AZƏRBAYCAN

**XÜLASƏ**

Məktəbə hazırlıq həyatın mühüm mərhələsidir. Uşaqların məktəbdəki imkanlardan ən yaxşı şəkildə istifadə etmələri üçün onları məktəbə tam hazırlamaq lazımdır. Bu hazırlıq prosesi əlilliyi olan uşaqlar, xüsusən autizmli uşaqlar üçün olduqca vacibdir. Uşaqların məktəbə düzgün hazırlanmasında ailələrin mühüm rolu var. Ailələr uşaqları məktəbə hazırlamaq üçün onlara bir çox yöndən dəstək olmaları vacibdir.

Təqdim olunan tədqiqat işində autizmli uşaqların məktəbə hazırlıq mərhələsində ailənin rolu araşdırılır, erkən diaqnoz, multisensor inkişaf, reabilitasiya xidmətləri, məktəbəqədər təhsil kimi sahələrdə dəstəyin təmin edilməsi vurğulanır. Məqalənin elmi yeniliyi məktəbə hazırlıq üçün kompleks yanaşmanın effektivliyi ilə əsaslandırılır. Təklif olunan kompleks yanaşma əlaqədar sahə üzrə işləyən mütəxəssislərə praktik tövsiyələr vermək baxımından da əhəmiyyətlidir. Tədqiqatın nəticələrindən inlüziv təhsil mütəxəssisləri, pedaqoqlar, xüsusi pedaqoqlar, həmçinin autizmli uşaqlarla fərdi işləyən mütəxəssislər faydalana bilər.

**SUMMARY**

Preparing for school constitutes a pivotal developmental phase in a child's life. It is imperative that children are adequately primed for their educational journey to optimize their scholastic opportunities. This preparatory phase holds particular significance for children with disabilities, notably those diagnosed with autism spectrum disorder (ASD). Families assume a crucial role in the preparation of children for school, necessitating multifaceted support from caregivers.

The present study investigates the familial involvement in facilitating the school readiness of children with autism, underscoring the significance of support interventions spanning early diagnosis, multisensory development, rehabilitation services, and preschool education. The scholarly merit of this research lies in the demonstrated efficacy of a holistic approach to school readiness. Moreover, the proposed comprehensive framework bears practical implications for professionals operating within the domain. Inclusive education specialists, pedagogues, special educators, and practitioners engaged in individualized interventions with autistic children stand to derive valuable insights from the findings of this study.

**Açar sözlər:** məktəbə hazırlıq, autizm, inklüziv təhsil
**Key words:** school readiness, autism, inclusive education

## GİRİŞ

Ailə cəmiyyətin əsas özəyi hesab olunur. "Ailə öz təkrar olunmaz aləmi ilə inkişaf edən kiçik bir cəmiyyətdir. Bu kiçik cəmiyyətdə xalq, millət formalaşır və millətin, ölkənin səviyyəsi bu ailələrin səviyyəsindən asılıdır." (Gəncəli, 2011])Ailə uşağın formalaşmasında mühüm rol oynayır. O, ailə vasitəsilə mənəvi dəyərlərə yiyələnir. Ailə həm də şəxsiyyətlərarası münasibətlərin psixologiyasını ifadə edir. "Şəxsiyyətin ailə sosiallaşması ailə daxilindəki münasibətlərdən, valideynlərinin nüfuzu və rəhbərliyindən asılıdır. Müasir ailədə bütün dəyişikliklər, biliyin texnologiyasının və məlumatların toplanması və sistemin yenidən qurulması, siyasi və iqtisadi sistemin böhranı kimi iri dəyişikliklər də təsir göstərir." (QHT Nəşriyyatı, 2015) Ailə cəmiyyətin struktur vahididir. Uşağın ailədə məktəbə hazırlanması valideynlərin üzərinə böyük vəzifələr qoyan çox mühüm bir məsələdir. "Ailə münasibətlərində həyat yoldaşı, analıq və atalıq borcunun xüsusi əhəmiyyəti mövcuddur. Bu borcun hissi məhəbbəti daha da zəngin və nəcib edir, həmçinin ailənin mənəvi əsaslarını daha da möhkəmlədir. Ailə həyatının əxlaqi-mənəvi dəyəri namus, sədaqət, hörmət, məsuliyyət, borc qanunları ilə müəyyən olunur. Cəmiyyət ər-arvadın üzərinə qurulan ailənin taleyi üçün məsuliyyət qoymuşdur.

Onlar ailənin qarşısına çıxan çətinlikləri birlikdə aradan qaldırmalı, bir-birlərini mənəvi və fiziki cəhətdən müdafiə etməli, sağlamlığını qorumalıdırlar." (Abbasov, 1989)

"Azərbaycan Respublikasında bütün sahələrdə olduğu kimi, tərbiyə sahəsində də həyata keçirilən geniş miqyaslı tədbirlərin məqsədi mükəmməl tərbiyəyə-dünya görüşünə, milli, əxlaqi, mənəvi və ümumbəşəri dəyərlərə yiyələnən insan tərbiyə etmək, nəsil yetişdirməkdən ibarətdir." (Hüseynzadə, 2016]) Ailədə və məktəbəqədər tərbiyə müəssisələrində istifadə edilən təlim-tərbiyə metodları öz seçiminə, uşağa təsir qüvvəsinə görə fərqlənir. Ailə tərbiyəsi özünəməxsus həyati təcrübəyə, müəyyən adətlərə, vərdişlərə əsaslanır və daha çox öz təbiiliyi ilə seçilir. Məsələn, uşaqlar məşhur valideyninin istedad tərəflərini, qəhrəman valideynin vətənpərvərliyini, zəhmətsevər valideynin işgüzarlığını və əməksevərliyini, ətrafındakıların hörmət və ehtiramını qazana bilməyən valideynin mənəvi vərdişlərini özündə daşıyır. "Məktəbəqədər yaş dövründə uşaqların tərbiyəsi və təlimi sahəsində yol verilən diqqət çəkməyən xətalar sonralar çox əhəmiyyətli problemlər olaraq özünü göstərir. Ona görə də həmin dövrdə heç bir şeyi nəzərdən qaçırmadan fəaliyyət göstərmək, uşaqları müstəqil həyata hazırlamaq lazımdır." (Məmmədova, 2007)

Uşağın məktəbə hazırlanması özündə iki vəzifəni birləşdirir: 1) uşağın hərtərəfli (fiziki, əqli, mənəvi, estetik) inkişafına hazırlıq; 2) məktəbdə öyrənəcəyi fənlərin mənimsənilməsinə xüsusi hazırlıq. Yalnız uşaq bağçalarında deyil, ailədə də məktəbəqədər düvürü əhatə edən zamanda uşağa verilən təhsil onun inkişafına mühim dəstək verir. Autizmli uşaq öz təhsil fəaliyyətini müstəqil şəkildə həyata keçirə bilməz. Belə uşaq öz valideynlərinin köməyinə möhtacdır. Beş yaşlı uşaqların ehtiyaclarını və imkanlarını diqqətə alaraq onların təhsil və inkşafını təmin etmək məktəbə hazırlığın əsas məqsədidir. Bu uşaqların məktəbə hazırlıq prosesi "Azərbaycan Respublikasında məktəbəqədər təhsilin proqramı (kurikulumu) (3-6 yaş)" əsas alınaraq aparılır. Beşyaşlıların məktəbə hazırlığı məktəbəqədər təhsil müəssisələrində (uşaq bağçalarında), məktəblərdə, ailədə və qısa müddətli təlim qruplarında aparıla bilər." (Metodik məvait, 2017)

Məktəbəqədər yaşdaki uşaq və valideynlər üçün çox vacib sayılmaqla yanaşı onların fiziki, psixofizioloji və ən əsası isə şəxsiyyətnin inkişaf dövrü olaraq qəbul olunur. Bu yaş mərhələsində uşağın fiziki baxımdan inkişafı əsasən diqqəti cəlb edir. Uşağın inkişaf səviyyəsini, imkanlarını, zehni funksiyaların qorunma dərəcəsini, öyrənməyə hazırlığını müəyyən etmək üçün testlərin aparılması tövsiyə olunur. Test zamanı yaranan vəziyyət intellektual tənəzzül haqqında danışmaq üçün bir səbəb deyil, çox güman ki, bu, uşağın emosional yetişməməsi, artan narahatlığı və davranış üzərində formalaşmamış könüllü nəzarəti ilə izah edilə bilər.

Bu xüsuslara əsasən qeyd edilməlidir ki, uşağın məktəbə hazırlığında ailənin müstəsna rolu var. Sağlamlıq imkanları məhdud (SİM) uşaqların, xüsusən aitizmli uşaqların həyatında isə bu rolun əhəmiyyəti dəfələrlə artıqdıq. Çünki həssas qrupdan olan autizmli uşaqlar erkən yaşdan reabilitasiya və xüsusi təhsillə yanaşı ailə mühitində hərtərəfli dəstəyə ehtiyac duyurlar. Belə olan halda valideynlər autizmli uşağın məktəb həyatına, xüsusilə inklüziv təhsilə hazırlıqlı olması üçün bir sıra amilləri nəzərə almalıdırlar. Çünki uşaqlar erkən yaşlarda vaxtları əhəmiyyətli bir qismini ailədə keçirirlər. Bağça və ya reabilitasiya mərkəzlərinə getməyən SİM uşaqlar isə erkən inkişaf dövründə tamamilə ailə üzvlərindən asılı olurlar. Ailə, belə demək mümküsə, uşaq üçün ilk "təhsil müəssisəsidir". Erkən uşaqlıq dövründə inkişafı lazımınca stimullaşdırmaq və uşağın öz potensilını reallaşdırmağına dəstək olmaq birmənalı olaraq ailənin öhdəliyinə düşür. Bu isə öz növbəsində ailənin hazırlıqlı olmasını, xüsusən ana-atanın yüksək valideynlik səriştəsinə malik olmasını tələb edir (Aydın, 20099).

**MƏKTƏBƏ HAZIRLIQ MƏRHƏLƏSİNDƏ AİLƏNİN ROLU**

Uşaq inkişaf mütəxəssisləri 0-6 yaş dövrünü insan həyatında ən önəmli dövr hesab edirlər. Çünki insan beyninin 80%-i 5 yaşadək formalaşır və insanın ali psixi funksiyalarının təməli məhz bu dövrdə qoyulur. Fiziki, əqli və psixi inkişaf ləngiməsi olan uşaqların inkişafının stimulaşladırılması məqsədilə kompleks erkən müdaxilə baxımında da erkən yaş dövrü misilsiz imkanlar mərhələsi hesab edilir. Bu mərhələdə inkişafı yönündə ailədə qənaətbəxş dəstək görmüş SİM uşaqlar məktəb həyatına daha çevik adaptasiya ola və təhsilin imkanlarında daha çox faydalana bilirlər. "Məktəbəqədər yaş dövründə uşaqların tərbiyəsi və təlimi sahəsində yol verilən diqqət çəkməyən xətalar sonralar çox əhəmiyyətli problemlər olaraq özünü göstərir. Ona görə də həmin dövrdə heç bir şeyi nəzərdən qaçırmadan fəaliyyət göstərmək, uşaqları müstəqil həyata hazırlamaq lazımdır." (Məmmədova, 2007) Bəs ailədə məktəbəhazırlıq mərhələsini uğurlu keçmək üçün valideynlər hansı məqamları nəzərə almalıdırlar? Bəzi əsas xüsusları aşağıda nəzərdən keçirək.

Erkən diaqnoz. İlk tələb uşağı yaxşı tanımaqdır. Yəni SİM uşağın diaqnozunu mümkün qədər erkən və dəqiq təyin etmək və uyğunlaşdırılmış dəstək təmin etmək olduqca vacibdir. İnkişaf anomaliyalarını bir-birindən fərqləndirmək üçün hər bir inkişaf ləngiməsinin spesifik xüsusiyyətlərini nəzərə almalıyıq. (Məmmədova, 2014)

Diaqnozun dəqiq qoyulması inkişafı düzgün yönləndirməyin ilkin tələblərindəndir. Uşağa diaqnoz qoymaq ailənin vəzifəsi olmasa da, ləng inkişaf dinamikasından şübhələnmək ailənin üzərinə düşən vəzifədir. Çünki uşaqla daim sıx əlaqədə olan ailə üzvlərinin inkişafı daha yaxından izləmək imkanı var. Ümumi müşahidə ilə inkişafı tempini müəyyənləşdirməkdə çətinlik çəkən ailələr bu məqsədlə tərtib edilmiş qiymətləndirmə alətlərindən istifadə edə bilərlər. Erkən tədbirlərin görülməsi uşağın həyatında dönüş nöqtəsi yarada bilər.

Multisensor inkişafı dəstəkləmək. Erkən yaşda uşaqlar ətraf ələmi əsasən hissi qavrayışla dərk edir. Yəni uşaqlar əşya və hadisələrin mahiyyətini əsasən duyğu orqanları vasitəsilə anlamaq iqtidarındadırlar. Duyğu orqanları ilə qəbul edilmiş informasıya əqli inkişafı sürətləndirən stimul kimi çıxış edir. Bu stimulyatorlar uşağın əqli və psixi fəaliyyətini intensivləşdirir və inkişafa sövq edir.

Multisensor dəstək SİM uşaqlar üçün xüsusən əhəmiyyətlidir. Ləngimiş inkişafın dəstəklənməsi üçün bütün duyğu orqanlarının səfərbərliyə alınması inkişaf üçün daha geniş zəmin yaradır. Bunları nəzərə alaraq oyuncaqların, fəaliyyətlərin, uşaqla ünsiyyətin mümkün qədər multisensor əsaslı olması – görmə, eşitmə, toxunma və s. aktları stimullaşdıran olması arzuolunandır.

Reabilitasiya xidməti. SİM uşaqların kompleks erkən müdaxilə proqramına cəlb edilməsi onların inkişafını maksimum stimullaşdırmaq üçün başlıca şərtlərdəndir. Təcrübə göstərir ki, erkən müdaxilə proqramından keçmiş uşaqlar məktəb həyatına daha rahat və çevik adaptasiya ola bilirlər. Çünki peşəkar müdaxilə proqramı təhsil üçün önəmli olan əqli və psixi funksiyaların təşəkkülünə ciddi dəstək olur.

Ancaq nəzərə almaq lazımdır ki, kopleks erkən müdaxilə proqramının əsas komponentlərindən biri ailədir. Yəni ailə proqramda nəzərdə tutulmuş müdaxilə tədbirlərinin həyata keçirilməsində fəal iştirak etməlidir. Yalnız reabilitasiya və ya təhsil mərkəzində tətbiq edilən proqram inkişafın dayanıqlı olması üçün kifayət deyil. Uşaq vaxtının əksər hissəsini ailədə keçirdiyi üçün ailə üzvlərinin proqramda nəzərdə tutulmuş tədbirləri mümkün olduğu qədər ev mühitində də tətbiq etməlidirlər. Bunun üçün mütəxəssislərin təlimatı nəzərə alınmalıdır. Yalnız ailənin də yaxından iştirak etdiyi erkən müdaxilə tədbirləri uşağın məktəbəhazırlıq mərhələsinə əhəmiyyətli töhfə verə bilər.

Məktəbəqədər təhsil. Söz yox ki, məktəbəhazırlıq mərhələsində məktəbəqədər təhsil müəssisəsinin rolu son dərəcə əhəmiyyətlidir. Sosial varlıq kimi insanın icma ilə sıx əlaqə və ünsiyyətdə olmağa ehtiyac duyur. Bu mənada bağçalar uşaqların sosial və həyati bacarıqlarının formalaşmasında aparıcı faktorlar biri kimi çıxış edir. Ümumtəhsil səviyyəsində uşağın inklüziv təhsilə yönləndirilməsinə zəmin yaratmaq üçün bağça, xüsusən inklüziv bağça ümdə amillərdəndir.

Lakin nəzərə almaq lazımdır ki, söhbət SİM uşaqlardan gedirsə, ailənin bağça ilə sıx əməkdaşlığı əlahiddə əməhəmiyyət kəsb edir. SİM uşaqların dəstəklənməsi kontekstində ailə, belə demək mümkünsə, bağçanın törəməsi kimi çıxış etməlidir. Yəni bağçada uşağın bacarıqlar qazanması üçün tətbiq olunan proqram və yanaşmalar evdə də davam etdirilməlidir ki, uşağın inkişafı davamlı və harmonik olsun.

**NƏTICƏ**

Uşağın göz açdığı və həyata hazırlandığı mühit olaraq ailə misilsiz dəyərdir. SİM uşaqların vəziyyətində isə ailə anlayışı daha ciddi əhəmiyyət kəsb edir. Həssas qrup kimi SİM uşaqların daha həssas qayğıya, xüsusi yanaşmaya, intensiv dəstəyə ehtiyacı var. Ailə bu tələblərin qarşılandığı ən uyğun mühitdir. Bu mənada SİM uşaqların məktəb həyatına hazırlığını da ailədən kənar hadisə kimi təsəvvür etmək qeyri-mümkündür. SİM uşaqların məktəbəqədər hazırlıq işinin ailə daxilində daha effektiv təşkil edilməsi üçün ailənin başlıca şərtləri nəzərə alması – düzgün diaqoza nail olmaq, multisensor inkişaf ehtiyaclarını nəzərə almaq, reabilitasiya və məktəbəqədər təhsil xidmətlərindən istifadə etmək, həmçinin uşağın fərdi ehtiyaclarından irəli gələn digər tələbləri qarşılamaq vacibdir.

**ƏDƏBIYYAT SIYAHISI**

1. “Autizm spektr pozuntulu uşaqların yaradıcılıq qabiliyyətinin inkişaf etdirilməsi və kompüter təlimi” layihəsi: (2015) buklet /Azərb. Resp. Autizm Defektoloji və Psixoloji Yardım Mərkəzi İctimai Birliyi, Azərb. Resp. Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası.-Bakı: [QHT Nəşriyyatı], 10-17.
2. Abbasov A.N., Əlizadə Ə.Ə. Ailə.-Bakı: Maarif, 1989.-312 s.
3. Hüseynzadə, L.R., Allahverdiyeva, L.İ. Ailə pedaqogikası.-Bakı: ADPU, 2016.-216 s.
4. Gəncəli,S. Alə: Ensiklopedik toplu. II kitab.-Bakı: Azərbaycan nəşriyyatı, 2011.-168 s.
5. Məmmədova, A.Ə. (2014) Əqli və fiziki inkişafdan geri qalan uşaqların yardımçı məktəbə seçilməsi qaydaları //Bakı Universitetinin Xəbərləri: Sosial-siyasi elmlər seriyası.-.- №2.-s.91-106.
6. Məmmədova, A.M. Uşaq bağçasında beşyaşlıların məktəbə hazırlanması.-Bakı: ADPU, 2007.-160 s.
7. Məktəbəhazırlıq qruplarında işin təşkili metodikası.-Bakı, 2017.-114 s.
8. Mehmet Zeki Aydın (2009), Ailede ahlak eğitimi, 25-56.
9. Məmmədova, A.M. (2007) Uşaq bağçasında beşyaşlıların məktəbə hazırlanması.-Bakı: ADPU,.-160-167.
10. Micheal M.Mueller (2010), Ajamu Nkosi, ABA Poqramlarının Böyük Kitbı, 450-460.
11. Hüseynzadə, L.R., Allahverdiyeva, L.İ. Ailə pedaqogikası (2016).-Bakı: ADPU, 30-35.

# MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN TƏRBİYƏSİNİN FORMALAŞMASINDA OYUNLARIN ROLU

**Qasımzadə Ayan İlqar qızı**
Bakı Slavyan Universiteti
Magistratura: Məktəbəqədər təlim və tərbiyənin metodikası və metodologiyası
*qasimzadayan@gmail.com*
Bakı, Azərbaycan
Rəyçi: Ş.M.Məmmədov

**Xülasə**

Uşaqlar həyatla, ətrafla tanış olmağa başladıqları ilk andan etibarən onların inkişafını dəstəkləyən əsas vasitələrdən biri də oyun və oyuncaqlardır. Oyun vasitəsilə onlar ətrafdakı insanlardan, yaşlılardan belə öyrənə bilməyəcəkləri təcrübələri qazanırlar. İlkin həyat təcrübələrini oyunlar vasitəsilə qazanırlar. Uşaqlar oyunlar vasitəsilə ətrafı, insanları və ən başlıcası özlərini kəşf edir tanıyır və buna istinadən öz həyat yollarına başlayırlar. Xüsusilə burada təfəkkür, təxəyyül, hisslərin əsaslıinkişafı başlayır, münasibətləri formalaşır- dostluq, yoldaşlıq, əmək, sevgi və s. Münasibətlərdə ilk öncə ünsiyyəti qeyd etməliyəm, çünki hətta danışmağı istəməyən, sevməyən uşaq belə oyun vasitəsilə müəyyən ünsiyyətə, dialoqa daxil olur. Və elə bu əsnada uşaqlar oyun oynayarkən yaşadıqları, keçirdikləri hissləri əks etdirir, yavaş-yavaş ünsiyyət qurmağı öyrənir, həm də sosiuma daxil olmağa başlayırlar. Nəticə etibarilə sosiuma daxil olan uşaq artıq cəmiyyətdən biri olmağa başlayır. Zaman-zaman qəbul etdiyi informasiyalar uşaqda müəyyən dəyərlərin formalaşmasına səbəb olur.

***Açar sözlər:*** *məktəbəqədər yaş, oyun, inkişaf, mənəvi tərbiyə, dəyər anlayışı, əxlaqi keyfiyyətlər*

**Summary**

Games and toys are one of the main tools that support children's development from the first moment they start to get acquainted with life and the environment. Through the game, they gain

experiences that they cannot learn even from the people around them, from the elderly. They gain their first life experience through games. Children discover and get to know the environment, people and most importantly themselves through games and start their life paths based on this. Especially here, fundamental development of thinking, imagination, feelings begins, relationships are formed - friendship, companionship, work, love, etc. In relationships, first of all, I should mention communication, because even a child who does not want to talk, does not like to talk, enters into a certain communication and dialogue through the game. And it is during this time that children reflect the feelings they experience while playing, slowly learn to communicate, and also begin to enter society. As a result, the child who enters the society begins to become one of the society. Information received from time to time leads to the formation of certain values in the child.

***Key words:*** *preschool age, play, development, moral education, value concept, moral qualities*

**Аннотация**

Игры и игрушки являются одним из основных средств, поддерживающих развитие детей с первого момента их знакомства с жизнью и окружающей средой. Через игру они получают опыт, которому не могут научиться даже у окружающих людей, у старших. Свой первый жизненный опыт они получают через игры. Дети через игры открывают и познают окружающую среду, людей и самое главное самих себя и начинают на основе этого свой жизненный путь. Именно здесь начинается фундаментальное развитие мышления, воображения, чувств, формируются отношения – дружба, товарищество, работа, любовь и т. д. В отношениях прежде всего следует упомянуть общение, потому что даже ребенок, который не хочет говорить, не любит разговаривать, через игру вступает в определенное общение и диалог. И именно в это время дети отражают чувства, которые они испытывают во время игры, постепенно учатся общению, а также начинают входить в общество. В результате ребенок, попадающий в общество, начинает становиться частью общества. Информация, получаемая время от времени, приводит к формированию у ребенка определенных ценностей.

***Ключевые слов:*** *дошкольный возраст, игра, развитие, нравственное воспитание, ценностная концепция, моральные качества*

**Giriş.**

**Mövzunun aktuallığı.** Uşaqların tərbiyəsinin formalaşmasında oyunların tərbiyəvi əhəmiyyəti müasir pedaqogikanın aktual problemlərindən biridir. Ümumiyyətlə, oyun məktəbəqədər yaşlı uşaqların yaşamında, həyatında mühüm rol oynayır. Oyunun uşaq həyatına, uşağa təsiri sadəcə biristiqamətli qəbul edilməməlidir. Belə ki, oyunlar, həmçinin, oyuncaqlar uşaqların mənəvi dünyasına, əqlinə, fiziologiyasına, duyğularına, nitqinə və s. proseslərin inkişafına müəyyən səviyyədə öz təsirini göstərir. Bu təsir hər bir uşaqda fərqli səviyyədə və reaksiyalarda özünü əks etdirə bilər. Belə ki, hər bir uşaq eyni oyun çərçivəsində olsa belə fərqli nəticələr əldə edib, fərqli təsirlərə məruz qala bilərlər. Məsələn, oyun daxilində situasiya anında baş verənlər bir uşaqda mərhəməti formalaşdırdığı halda, digər uşaqda aqressiya yarada bilər. Hazırda ümumiyyətlə oyunların təsiri daha da fərqlidir. Belə ki, oyunların növlərinə görə mahiyyəti də, təsirləri də fərqli olur. Çünki hazırda oyunları qruplaşdırsaq bu günə kimi mövcud olan oyunlar - milli və hazırda telefon, komputerdən istifadə ilə oynanılan oyunlar nəzərdə tutulur. Telefon və komputer oyunları demək olar ki, tamamilə fərqli formatda və adətən reallıqdan uzaq olduğundan uşaqları fərqli istiqamətlərə yönləndirib, baxış bucaqlarını dəyişirlər. Belə ki, telefon və komputer oyunlarının seçimi zamanı uşaqların yaş səviyyələrinin nəzərə alınmaması, oyun daxilində baş verənlərlə valideynin tam xəbərdar olmaması, hələki oyun zaman oyundan əlavə ekranda əks olunan reklam xarakterli görüntülər bütün bunlar və s. daxil hər biri demək olar ki, uşaqların iradəsindən asılı olmadan birbaşa onların şüuraltısına təsir edərək müəyyən düşüncələrin və hisslərin formalaşmasına səbəb olur. Məhz elə bu səbəbdən oyunların uşaqlara təsir etməsi hazırda daha aktual məsələlərdən biridir. Çünki günümüzdə oyunlar, oyun oynamaq dediyimizdə nə nəzərdə tutduğumuz, bu kimi anlayışlar da dəyişildiyindən onların necə təsiri göstərməsində də yanaşmalar fəqlənir. Texnologiyanın inkişafı əksər məsələyə təsir göstərdiyi kimi, uşaqların təlim və tərbiyəsində də öz təsir gücünü göstərir.

**Tədqiqat metodu.** Tədqiqat işi zamanı mövzuya uyğun olaraq uşaqların tərbiyəsi zamanı oyunların rolu məsələlərini özündə əks etdirən ədəbiyyat nümunələri təhlil edilmiş,müqayisəli analiz metodundan istifadə edilərək işlənmişdir.

Oyun bizim daxil olduğumuz dünyanı uşaqların dünyasına yavaş-yavaş daxil etməyə başlayır. Dünya var olduğu andan etibarən insanlar və heyvanlar arasında öz mövcudluğunu davam etdirən oyun insanların uşaqlıq dövründən özünü və ətrafını tanımağına dəstək olur. Uşaq real dünya ilə əlaqədar olan sualların cavablarını öz dünyasında tapmağa çalışır və bu zaman hansı yaş qrupuna daxildirsə, daxil olduğu yaş qrupunun oyunları uşağa bu araşdırma üçün şərait yaradır. Oyun müəyyən qaydalarla, müəyyən çərçivə daxilində oynanan, sadəcə məqsədi uşaqların maraqlarını qarşılamaq deyil, eyni zamanda həm uşaqlar, həm böyüklər üçün təhsillləndirici, tərbiyəedici əhəmiyyəti olan və onlara əyləncə yaşadan prosesdir. Boratov: oyun haqqında belə yazır: oyun gündəlik həyat rejimimizdən geriyə qalan vaxtda əyləncə məqsədlidir.

Yavuzer: "sonluğu, nəticəni düşünmədən, əğləncə məqsədli hərəkətlər cəmi hesab edir. İlkin yanaşmalarda oyun hər nə qədər əyləncə məqsədli göstərilsə də, əslində ümumilikdə oyun uşaqların inkişafı, tərbiyə və təhsilini tamamlayır."

Günümüzdə oyunlar: milli oyunlar; komputer oyunları olaraq qruplaşır. Hazırda televiziya və komputer həyatımızın çox böyük bir hissəsini əhatə edir, yəni artıq bunu sadəcə böyüklərə deyil, uşaqlara da aid edirik. Bütün bunların ən başlıca səbəbkarı isə valideynlərdir. Bir növ susmaq payı olaraq uşaqların daima texnologiyaya yönəldilməsi onların əksər sahədə məhdudlaşmasına səbəb olur. Bütün bunlara əsasən oyunlar milli və komputer olaraq qruplaşır. Bu bölgünün əsas səbəbi isə oyunların uşaqlara ötürdüyü və cəmiyyətimizi bu gün var edən dəyərlərimizdir. Bu dəyərlər uzun zaman əvvəl yaradılıb, formalaşdırılıb və ayrı-ayrı yollar xüsusilə oyunlar vasitəsilə nəsildən-nəsilə ötürülmüşdür. Buna əsasən də dəyərləri özündə əks etdirən oyunlara milli adı verilmişdir. Məsələyə bu cəhətdən baxıldığı zaman komputer oyunlarının uşaqların həyatına, daxili dünyalarına ya heç bir şey qatmadığı, ya da mənfiyə istiqamətləndirdiyi, milli mənəvi dəyərlərdən uzaqlaşdırdığı məlum olur.

Uşaq oyunlarının xarakter tipini yaş prinsipinə görə təsnif etmək olar:

1) məktəbəqədər yaşlı uşaq oyunları; 2) kiçik məktəbyaşlılar üçün səciyyəvi olan uşaq oyunları və 3) orta və yuxarı yaşlı uşaqlar arasında keçirilən oyunlar. Uşaq oyunlarının yaş prinsipinə görə bu cür təsnifat bölgüsünü aparmaq sadəcə mexaniki təsir bağışlamır, bu yaş bölgüsünə görə uşaq oyunlarının ayrılmasının - seçilib-fərqlənməsinin özündə bir sosial-psixoloji-fəlsəfi mahiyyət gizlənib. Uşaq oyunlarının yaş etibarilə bu cür qruplara bölünə bilməsinin əsasında da hər yaşın öz psixologiyasına uyğun, dünyagörüşünə və orqanizmin formalaşmasına uyğun tələbləri dayanırdı. Belə ki, necə hər sinfin özünə məxsus məktəbli dərsliyi və s müəyyən proqramı olduğu kimi və bu proqramlara əsaslanaraq onlar əsasında da şagirdlər yuxarı siniflərə keçdikcə biliklərini, əldə etdikləri informasiyaları artırırlarsa, həmçinin uşaq oyunları da insan həyatında zaman-zaman müəyyən mərhələ aralığında öz xarakter,forma və tipini dəyişməklə davamlı proses olaraq, yaş psixologiyasının məzmununa uyğun şəkildə öz məzmununu dəyişməklə uşaqların dünyagörüşlərinə, ətrafa, baş verənlər qarşı baxış bucaqlarına, davranış normalarına öz öyrədici, kamilləşdirici təsir funksiyasını yerinə yetirir. İnsanın kamillik yaşına yetişməsi – kamilləşməsi yolunda hər yaşın öz xarakterik xüsusiyyətləri olduğu kimi, uşaq oyunlarının da hər yaş dövrü üçün səciyyəvi formaları bir-birilə təbii şəkildə dəyişilib - əvəzlənir. Uşaq oyunları uşaq dünyasının ayrılmaz tərkib hissəsi olmaqla həm də onların dünyagörüşlərinin yaranıb, formalaşmasında mühüm rol oynayır.

Məşhur pedaqoq Suxomlinski tərəfindən belə bir fikir deyilmişdir ki: "Oyun zamanı uşaqların qarşısında yeni bir dünya açılır, şəxsiyyətin yaradıcı qabiliyyəti açılır. Oyun olmadan dolğun,geniş məzmunlu əqli inkişafdan bəhs edə bilmərik. Oyun uşaqlar üçün çox böyük,geniş işıqlı pəncərədir: həmin pəncərədən uşağın mənəvi aləminə ətraf aləm haqqında təsəvvürlərin, anlayışların həyatverici axını daxil olur. Oyun hər şeylə maraqlanmaq, biliyə səy göstərmək odunu yandıran qığılcımdır…".

Ümumilikdə dəyərləndirsək oyun uşaqların fiziki inkişafında; psixomotor inkişafında; duyğusal inkişafında; sosiol inkişafında; əqli inkişafında və dil, nitqinin inkişafında mühüm rol oynayır.

Fiziki inkişafda oyunun necə rolu ola bilər?

Oyun prosesində uşaqlar bəzi hərəkətləri daimi olaraq təkrar edirlərsə bu onların əzələlərinin inkişafını sürətləndirir. Bildiyimiz üzrə uşaqlar çox hərəkətli varlıqlardır. Onları sabit halda, hərəkətsiz bir an belə müşahidə etmək çox çətin məsələdir. Təbii ki, istisna hallar özünü göstərə bilər. Xüsusilə qaçış, sürünmə, hoppanma, tullanma ve dırmaşma kimi hərəkətləri özündə əks etdirən oyunlar fiziki olaraq uşaqlardan güc tələb edir. Elə bu səbəbdən bu kimi hərəkətli oyunlar uşaqların tənəffüs, qan dövranı, ifrazat, həzm kimi sistemlərinin daha nizamlı və aktiv işləməsini təmin edir.

Psixomotor inkişafda oyunun necə rolu ola bilər?

Motorika dedikdə nəyi nəzərdə tuturuq. Motorika hərəkət mənasını verir. Uşaqların hər biri dünyaya gəldikləri andan etibarən hətta ana bətnində olarkən belə onların fiziki inkişafı başlayır, dünyaya gəldikdən sonra isə bu proses daha da sürətlənir. Motorika uşağın bütün həyatı boyu inkişaf edir. Böyük və kiçık motorika anlayışları mövcuddur.

Böyük motorikaya aiddir: hərəkətləri ardıcıl olaraq qeyd etsək ilkin öncə iməkləmək; sonra ayaqüstə yerimə sərbəst durma, tam yerimək, yellənmək, qaçmaq, fırlanmaq və s.

Kiçik motorikaya aiddir: uşaqların özlərinin əmək vərdişləri, hər hansısa işi görməsi. Məsələn: plastilindən istifadə ilə əllərilə nəyisə hazırlaması, kağız yapışdırması, nələrisə kəsməsi və s. Bir növ kiçik həcmli işləri. Elə bu səbəbdən kiçik motorika adlandırılır incə motorika.

Psixomotor inkişaf nəticəsində uşaqların fiziki inkişafı fiziki böyümə ilə kifayətlənmir, bununla yanaşı beyin və onurğa beyninin inkişafına təkan verir. Bu proses həm böyük motor hərəkət, həm də kiçik motor hərəkətin inkişafına təsir göstərir. Hərəkətlər: tullanma; atlanma; qaçma; kəsmə; yoğurma; dırmaşma; bağlama və s, hərəkətə yönəli davranışların təkrarlanması gündəlik həyatda əksər bacarıqların mənimsənilməsinə əsas verir.

Əqli inkişafında oyunun necə rolu ola bilər?

Qeyd etdiyim kimi oyun zamanı uşaq ətrafla müəyyən münasibətə daxil olur. Və bu münasibətlər sadəcə onu hərəki və duyğusal cəhətdən deyildə əqli cəhətdən də inkişaf etdirir. Onda əqli bacarıqların inkişafına təsir edir. Bəs nələri qazanır: ilk öncə ətrafı tanıma tədqiqatçılıq yəni, analiz və sintez; təhlil və tərkib prosesləri baş verir. Sonra problem anlayışı və onun həllinə yönəlik əqli işlər. Əqli inkişafa əsasən onlarda böyüklük; kiçiklik, məkan, zaman, sıralama, müqayisə, ümumiləşdirmə kimi bir çox zehinsəl bacarıqlar formalaşır.

Dil inkişafında oyunun necə bir rolu ola bilər?

Oyun zamanı uşaq özünü ifadə etmək, həm də qarşıdakını anlamaq məcburiyyətində olur. Və bu əsnada istiqamətləndirmə edərik, xəyali vəziyyətləri canladıraraq nitqi formalaşır. Oyun zamanı formalaşan ünsiyyət uşaqların söz ehtiyatını artırır, əsaslı şəkildə nitqininin inkişafına təsir edir. Bu hansı mənada baş verir: ilknöncə özlərindən adlandırdıqları sözlərinin əsas mənasını dərk edir, ayrı-ayrı mövzularla, ətraf aləmlə əlaqədar yeni sözlər öyrənir.

Duyğu inkişafında oyunun necə rolu ola bilər?

Uşaqlar oyun prosesində əvvəldə qeyd etdiyim kimi heç ifadə edə bilmədikləri ya bunu bacarmadıqlarından, ya da ifadə etməkdə çətinlik çəkdiklərindən oyun prosesində öz daxili dünyalarını rahatlıqla əks etdirilər. Beləliklə onlar oyun prosesində sevinc, hüzn, qorxu, qayğı, güvən, bəlkə də düşmənçilik nifrət kimi bir çox duyğusal reaksiyanı göstərmiş olurlar. Həmçinin rollu oyunlar vasitəsilə də ana, ata, bacı, qardaş, müəllim, satıcı, həkim və başqa bir çox rola daxil olduqlarından həmin sosiol rolları, onlar arasındaki münasibətləri hissi cəhətdən aydınlaşdırırlar.

Sosiol inkişafında oyunun necə rolu ola bilər?

Sosiol inkişafda duyğusal inkişafla qarşılıqlı əlaqədardır. Necə ki, uşaqlar rollu oyun prosesində hansı rolu canlandırırsa onun münasibətlərin qavrayır, əks etdirir bu sosiuma da aiddir. Çünki oyunda üzərinə götürdüyü kimliklərin ilk öncə cinsi kimliyini dərk edir. Uşaqlar qız-oğlan; ana-ata; bacı-qardaş kimi münasibətləri anlamağa başlayırlar. Həmçinin bu zaman onlar ailə daxili davranışları sərgiləyərək məsuliyyət, birlik, doğruluq, nizam-intizam, xoş sözləri - etiketləri özündə əks etdirən: sabahınız xeyir, təşəkkür edirəm, yorulmayasınız və s. kimi ifadələri, sosiol dəyərləri və etik davranışları öyrənirlər. Unutmayaq ki, ailə kiçik cəmiyyətdir, sosiumdur. Hər şeyin başlanğıcı ailədə qoyulur.

Oyunlar tərbiyə vasitəsi olub nitqin, zehnin inkişafına kömək edir, təşəbbüskarlığı yüksəldir, gümrah və çevik olmağa təsir göstərir. Oyunlar uşaqların əqli və fiziki cəhətdən inkişafına, əxlaq və əmək tərbiyəsinə müsbət təsir göstərir. Hətta belə də deyə bilərik ki, uşaq oyunda necədirsə, gələcək həyatında da elə davam edəcəkdir. Bir növ oyunlar uşaqları gələcəyə hazırlayır, beləcə onlarda ailədə, kollektivdə düzgün davranış qaydalarını aşılayır.

**Nəticə**

Qeyd olunanlar əasında son olaraq belə bir nəticəyə gəlinir ki, ümumiyyətlə əslində uşaqların tərbiyəsinin düzgün şəkildə inkişafına sadəcə o dünyaya gəldikdən sonra deyil, elə uşaq ana bətnində olduğu andan başlanmış hesab edilir. Çünki, artıq hər şeydən əvvəl onlarda hissetmə qabiliyyəti formalaşmış olur. Daha sonraki dövrlərdə, xüsusilə məktəbəqədər yaş dövründə artıq müəyyən qədər

idrak xüsusiyyətlərinin, psixoloji və fizioloji olaraq inkişafı onlarda təlim-tərbiyə prosessini həyata keçirməyə müəyyən qədər icazə verir. Tərbiyə prosessində xüsusi əhəmiyyət kəsb edən mənəvi tərbiyədir. Çünki, həqiqi insan olmaqdan bəhs ediriksə, mütləq mənəvi olaraq gərəkən səviyyədə olmalı və mənəvi dəyərlərə sahib olmalıyıq.

Məktəbəqədər yaşlı uşaqların tərbiyəsinə təsir edən üsullar arasında xüsusi əhəmiyyət kəsb edən oyunlardır. Bunun ən ümdə səbəbi oyunların daha çox onların yaşlarından dolayı mövcud maraq və əyləncə dairələrinə uyğun olması və buna əsasən uşaqlarında oyuna meyl etməsidir. Oyun ona meyil edən uşaqlarda hər hansısa bir hissin, xüsusiyyətin formalaşdırılmasına kömək edir. Lakin bu oyun zamanı biz məqsədli olaraq nəyisə formalaşdırmaq istəyiriksə, o zaman əsas olan düzgün oyun seçimi və onun düzgün şəraitdə həyata keçirillməsidir. Oyun zamanı məqsədli və ya məqsədsiz olaraq hər hansısa addımlar atılırsa mütləq ki, uşağın anlaq səviyyəsinə uyğun olaraq ona öz təsirini göstərəcək. Elə məhz bu səbəbdən uşaqlarla olan münasibət və davranışlarımızda diqqətli, ehtiyatlı olmalıyıq, xüsusilə yaş və fərdi xüsusiyyətləri nəzərə alınmalıdır.

**ƏDƏBİYYAT SİYAHISI**

**1.** A.M.Nəzərov. Məktəbəqədər müəssisələrdə tərbiyə və təhsilin humanistləşdirilməsi və demokratikləşdirilməsi fənni üzrə proqram. Bakı: 2015.
**2.** Ə.S.Bədəlova. Təlim-tərbiyə. Bakı: 2015.
**3.** F.A.Rüstəmov. Pedaqogika tarixi. Bakı: "Elm və təhsil", 2010.
**4.** F.B.Sadıqov. Pedaqogika. Bakı: Bakı Biznes Universiteti, 2006.
**5.** F.N.İbrahimov və R.L.Hüseynzadə. Pedaqogika, dərslik, II cild. Bakı: 2012
**6.** R.Çinarə : Oyunların elmi təhlili və onların uşaqların əqli-fiziki inkişafında əhəmiyyəti
**7.** Uşaq oyuncaqlarına olan gigiyenik tələblər. (Metodik vəsait)
**8.** https://www.eudi.az/meqale/etrafli/515
**9.** http://www.tipii.edu.az/az/article/336-oyunlarin-talimda-rolu

# MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN GENDER TƏRBİYƏSİNDƏ AİLƏNİN ROLU

**Həşimova Şərqiyyə Zakir qızı**
Bakı Slavyan Universiteti
Magistratura: Məktəbəqədər təlim və tərbiyənin metodikası və metodologiyası
serqiyehesimova@gmail.com
Bakı, Azərbaycan
Rəyçi: dos.N.S.Novruzova

**XÜLASƏ**

Ailənin uşağın həyatında rolu çox vacib və əvəzedilməzdir. Ailə insanın bir şəxsiyyət kimi yetişməsində böyük rol oynayır. Hər bir şəxsin sonrakı taleyi, həyatda tutacağı mövqe ailətərbiyəsi ilə bilavasitə bağlıdır. Ailə, ilk tərbiyə mühitidir. Ailə tərbiyənin digər tərkib hissələri kimi gender tərbiyəsinə də ciddi fikir verməlidir. Ailə, bir şəxsin gender tərbiyəsində ən əhəmiyyətli təsirlərdən biridir. Ailə, uşaqlara gender məsələlələri ilə bağlı ilk dəyərləri, normaları və mənasını təqdim edir. Gender tərbiyəsinə məktəbəqədər yaş dövründə başlamaq lazımdır. Çünki məktəbəqədər yaş dövründə uşaq artıq öz "mən"ini, öz cinsini dərk edir. Bu prosesdə də valideynlərin rolu çox böyükdür. Valideynlər uşaqların cinsiyyətlə bağlı suallarını adi suallar kimi cavab verməli, uşaqların müstəqil,

özünəinanan şəxslər kimi inkişaf etmələrinə imkan verən dəstəkləyici bir mühit yaratmalıdır. Ailə, uşaqlara cinslə bağlı müəyyən rolların nə olduğunu, hansı cinsiyyətə aid olduğunu öyrətməlidir.

**Açar sözlər:** gender, tərbiyə, məktəbəqədər yaşlı uşaq, ailə

**SUMMARY**

The role of the family in a child's life is very important and irreplaceable. Family plays a big role in the development of a person as a personality. The future fate of each person, the position he will take in life, is directly related to family upbringing. Family is the first educational environment. The family should pay serious attention to gender education as well as other components of education. Family is one of the most important influences in a person's gender upbringing. The family provides children with the first values, norms and meaning related to gender issues. Gender education should be started in preschool age. Because in the pre-school age, the child already understands his "I", his gender. The role of parents is very important in this process. Parents should answer children's questions about sexuality as normal questions and create a supportive environment that allows children to develop as independent, self-reliant individuals. The family should teach children what certain gender roles are, what gender they belong to.

**Key words:** gender, education, preschool child, family

**Ключевые слов:** пол, образование, ребенок дошкольного возраста, семья

## GİRİŞ

**Mövzunun aktuallığı**. Bildiyimiz kimi uşaqların tərbiyəsi çox aktual məsələlərdən biridir. Şəxsiyyətin əsası məktəbəqədər yaş dövründə qoyulduğu üçün bu yaş dövründə uşaqların tərbiyəsinə, inkişafına ciddi diqqət yetirmək lazımdır. Məktəbəqədər yaşlı uşaqlada tərbiyənin fiziki, estetik, əxlaqi və digər növlərinin inkişafına diqqət yetirdiyimiz kimi onun gender tərbiyəsinə də diqqət yetirmək lazımdır. Çünki uşaq öz cinsiyyətini, onun xüsusiyyətlərini bilməlidir. İlk tərbiyə mühiti ailə olduğu üçün uşaqların gender tərbiyəsində ailənin rolu əhəmiyyətli və əvəzedilməzdir. Ailə, uşaqlara cinsi identifikasiya, cins münasibətləri və cinsi tərbiyə ilə bağlı ilk məsləhətləri verən əsas yerdir. Ailədəki tərbiyə standartları, uşaqların cinsiyyətlə bağlı özünə inam, özünü tanıma və cinsi identifikasiya proseslərinin inkişafındakı mövqelərini təyin edir.

**Tədqiqat metodu.** Tədqiqat işi zamanı mövzuya uyğun olaraq uşaqların gender tərbiyəsində ailənin rolu məsələlərini özündə əks etdirən ədəbiyyat nümunələri təhlil edilmiş, müşahidə metodundan istifadə edilərək işlənmişdir.

Ailə cəmiyyətin ən kiçik birliyi kimi qəbul edilir. Ailə insan həyatında uşaq hələ dünyaya gəlmədən, ana bətnindən etibarən insan həyatının sonuna kimi öz təsirini göstərən bir birlikdir. Ailənin uşaq həyatında rolu çox böyükdür. Hətta bu böyük təsir daha ilk anlardan etibarən başlayır: ailənin uşağı istəyib-istəməməsi; mənəvi, psixoloji, iqtisadi, sosial cəhətdən yanaşma - bütün bunlar onların həyatına öz təsirini göstərir.

Bütün bunların nəticəsidir ki, insanın həyatda seçim edə bilməyəcəyi, belə bir sərbəstliyi olmayan tək, əsas olan birlik ailəsidir. Ailənin uşaq həyatındakı rolu hər daim qalıcıdır. Həmin izləri, anıları onun şüuraltısından, hafizəsindən silmək o qədər də asan deyil. Ailəmiz bizi bu həyata, bu dünyaya gətirən və daim bizi müəyyən istiqamətə yönləndirən bir qurumdur. İlk andan etibarən bu baş verir. Uşaq ana bətnində olarkən belə ona olan münasibəti, ana bətnində müəyyən dövrdən etibarən eşitdikləri, ana bətnində belə toxunuş uşaqda müəyyən bir şeylərin formalaşmasına səbəb olur. Dünyaya gəldiyi andan etibarən isə ailədə və sosiumda varlığı onu formalaşdırır.

Uşağın daxil olduğu ailə vəziyyəti onun ilk sosial mühitlə tanışlığıdır. Uşağın insanlara, ətraf aləmə münasibəti burada formalaşmağa başlayır. Bu xüsusi münasibətdə əsas bağlantı ana və ata ilə qurulur. Uşağın həyatı boyu sərgilədiyi davranışların birbaşa ana və ata ilə qurulan münasibətlə əlaqədardır. Məsələn, uşaqlarla daim səmimi, dəstəkləyici, birlik hissi ilə münasibət qurularsa, o zaman uşaq anaya, ataya, bacı və qardaşlarına daha yaxın olub, daha səmimi münasibət qurar. Amma əksinə əgər valideynlər onlarla qeyri-səmimi, mənəvi cəhətdən gücdən salacaq, şəxsiyyətlərinə toxunacaq şəkildə, rəqabətcil, uşaqlararası ayrı-seçkilik yaradacaq şəkildə, onları ailə münasibətlərindən, hətta məsuliyyətdən uzaq tutacaq, bilərək və ya bilməyərək münasibət göstərirlərsə bu zaman öz övladlarına mənfi davranışları etmək üçün artıq müəyyən dərəcədə istiqamətlənmiş olurlar.

Tərbiyənin əsas məqsədi hərtərəfli inkişaf etmiş şəxsiyyət yetişdirməkdir. Bu şəxsiyyətin təməli də ailə də qoyulur. Ailə uşaqları hər cəhətdən inkişaf etdirməlidir.

Tərbiyə prosesi insan həyatında ən önəmli və ən çətin proseslərdən biridir. Bu proses insan anadan olandan etibarən başlayır və bütün həyatı boyu davam edir. Tərbiyənin bir sıra tərkib hissələri vardır. Və onları kiçik yaşlardan formalaşdırmaq lazımdır. Bu tərkib hissələrindən biri də gender tərbiyəsidir. Gender tərbiyəsinə məktəbəqədər yaş dövründə başlamaq lazımdır. Çünki məktəbəqədər yaşlı uşaq artıq öz "mən"ini, öz cinsini dərk edir. Buna görə də istər ailədə, istərsə də məktəbəqədər müəssisələrdə uşaqların tərbiyə prosesinə qayğı ilə və məsuliyyətlə yanaşmalı, bu prosesin inkişafı üçün lazimi tədbirlər görülməlidir.

Məktəbəqədər yaşlı uşaqların gender tərbiyəsində ailənin rolu əhəmiyyətli və vacibdir. Ailə, uşaqlara cinsi identifikasiya, cins münasibətləri və cinsi tərbiyə ilə bağlı ilk məsləhətləri verən əsas yerdir. Ailədəki tərbiyə standartları, uşaqların cinsiyyətlə bağlı özünə inam, özünü tanıma və cinsi identifikasiya proseslərinin inkişafındakı mövqelərini təyin edir.

Böyük məktəbəqədər yaş dövründə uşaqlarda cinslərarası rəğbət, əks cinsə seçici münasibət özünü göstərir. Böyük məktəbəqədər yaş dövründə artıq qadınlıq, kişilik xüsusiyyətləri haqqında gender təsəvvürlərinin rüşeymi qoyulur. Uşaqlar tərəfindən hər iki cinsin tipik fəaliyyət sahəsi dərk edilir. Məktəbəqədər yaşlı uşaqlar öz cinslərinə mənsub yaşlılara oxşamaq, onlar kimi olmaq istəyirlər. Buna görə də onlar yaşlıları təqlid edirlər. Onların bu istəyi onların həm geyimlərində, həm də davranışlarında hiss olunur. Bu zaman ailə üzvləri öz davranış və münasibətləri ilə cinsin rolu haqqında model təşkil edir. Bu, uşaqlara cins fərqlərini anlamaq və onlara hörmət göstərməyə kömək edir.

Ailə, uşaqlara cins məsələlərini anlamağa, cinsi identifikasiya proseslərini dəstəkləməyə və cins münasibətlərini tənzimləməyə kömək edir. Ailə atmosferi, uşaqlara hansı cins rolda olmaları ilə bağlı hər hansı bir tərəfin qəbul edilməsi və ya qınanması ilə bağlı mühüm bir rola malikdir. Məsələn, ailə, uşağın fəal və müstəqil bir şəkildə öz cinsi identifikasiyasını müdafiə etməyə və öz istəklərinə və maraqlarına görə mövqe tutmağa imkan verə bilər. Buna əsasən, ailə, cinsi məsələləri ilə bağlı açıq, dəstəkləyici və qoruyucu bir mühit yaradaraq uşaqların sağlam cinsi identifikasiya prosesləri keçirməsinə kömək edir.

Həmçinin, ailənin cins tərbiyədə rolu, cinsə görə rolların ədalətli şəkildə tənzimlənməsinə də daxildir. Bu, uşaqlara hər iki cinsi bərabər dəyərləndirməyi və uşaqların maraqlarını və bacarıqlarını dəstəkləməyi öyrədə bilər.

Nəhayət, ailə, uşaqlara cins münasibətlərini düzgün şəkildə qurmağı, mənəvi dəyərləri və hörməti də öyrədir. Bu, uşaqların cinsə görə hörmət və münasibətləri daxilində düzgün mədəni standartları öyrənmələrinə və nəzəriyyələrinə əsaslanır.

Ən vacibi isə ailənin cinsi tərbiyədə rolunun, uşaqların sağlam cinsi identifikasiya proseslərini keçirməsinə kömək etməsi və onları müstəqil, özünəinanan şəxslər kimi inkişaf etmələrinə imkan verən dəstəkləyici bir mühit yaratmasıdır.

## NƏTİCƏ

Qeyd olunanlardan belə bir nəticəyə gəlirik ki, ailə uşağın həyatında ən önəmli rol oynayır. Ailə uşaqları tərbiyə etməklə hər tərəfli inkişaf etmiş şəxsiyyət yetişdirir. Buna görə də ailə uşaqların tərbiyəsinə ciddi şəkildə yanaşmalı, öz davranışları ilə uşaqlara nümunə olmalıdır.

## ƏDƏBİYYAT SİYAHISI

1. https://qadinkimi.com/az/usaqlarin-cinsi-terbiyesi
2. Mollayeva E. (2021). Məktəbəqədər yaşlı uşaqların əmək fəaliyyətinin təşkilində gender xüsusiyyətlərinin nəzərə alınması. "Məktəbəqədər və ibtidai təhsil". № 4 (237), səh.9-22

# MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARDA SAĞLAM HƏYAT TƏRZİ HAQQINDA FİKİRLƏRİN FORMALAŞDIRILMASI

**Sultanova Nigar Malik qızı**
Bakı Slavyan Universiteti
Magistratura,Pedaqoqika elmləri.
E-mail: nigarsultanova94@mail.ru
BAKI, AZƏRBAYCAN.

**XÜLASƏ**

Məqalədə məktəbəqədər təhsil müəssisələrində şagirdlərin sağlamlığının möhkəmləndirilməsi və qorunması problemi, sağlam həyat tərzi üçün sabit müsbət motivasiyanın formalaşdırılması ilə onların həyata keçirilməsi yolları araşdırılır. Sağlam həyat tərzi vərdişlərinin formalaşdırılması prosesində əsas yeri uşaqları fiziki fəaliyyətə cəlb etmək və onun səmərəliliyini artırmaq, uşağın aktiv asudə vaxtının rasional təşkili, qarşılıqlı əlaqənin gücləndirilməsi üçün məktəbəqədər təhsil müəssisələrinin sağlamlıq və tərbiyə işinin məqsədəuyğun təşkili tutur. ailə və tibb müəssisələri ilə.

**ФОРМИРОВАНИЕ ПРЕДСТАВЛЕНИЙ О ЗДОРОВОМ ОБРАЗЕ ЖИЗНИ У ДЕТЕЙ ДОШКОЛЬНОГО ВОЗРАСТА**

**РЕЗЮМЕ**

В статье рассматривается проблема укрепления и сохранения здоровья учащихся дошкольных образовательных учреждений, пути их реализации с формированием устойчивой позитивной мотивации здорового образа жизни. Основное место в процессе формирования привычек здорового образа жизни занимает целесообразная организация оздоровительно-воспитательной работы дошкольных учреждений для вовлечения детей в физическую активность и повышения ее эффективности, рациональной организации активного досуга ребенка, укрепления взаимодействия с семьей и медицинскими учереждениями.

**THE FORMATİON OF İDEAS ABOUT A HEALTHY LİFESTYLE İN CHİLDREN OF PRESCHOOL AGE**

**SUMMARY**

The article examines the problem of strengthening and protecting the health of students in preschool educational institutions, ways to implement them by forming a stable positive motivation for a healthy lifestyle. In the process of forming healthy lifestyle habits, the main place is occupied by the appropriate organization of health and upbringing of preschool educational institutions in order to involve children in physical activity and increase its efficiency, rational organization of the child's active free time, strengthening interaction with family and medical institutions.

***Açar sözlər:*** *böyük məktəbəqədər yaşlı uşaqlar, sağlam həyat tərzi, gündəlik iş rejimi, sağlamlıq, tədris metodları.*

***Ключевые слова***: *дети старшего дошкольного возраста, здоровый образ жизни, режим дня, здоровье, методические приёмы.*

***Keywords:*** *children of senior preschool age, healthy lifestyle, daily routine, health, teaching methods.*

## GİRİŞ.

Fransız yazıçısı Mişel Ekyim de Monten sağlamlıq haqqında çox dəyərli sözlər söyləmişdir: “Sağlamlıq bir xəzinədir, onun naminə nəinki vaxt, səy, əmək və hər cür faydaları əsirgəməyə, həm də onun üçün həyatın bir hissəsini qurban verməyə dəyər. çünki onsuz həyat dözülməz və alçaldıcı olur”.

«Sağlamlıq» anlayışının bir çox tərifləri var. Lakin tədqiqatçılar Ümumdünya Səhiyyə Təşkilatının tərifini ən populyar və ən əhatəli hesab edirlər: «Sağlamlıq tam fiziki, əqli və sosial rifah vəziyyətidir və təkcə xəstəlik və ya fiziki qüsurların olmaması deyil».

Hər bir insanın sağlamlığı aptekdə deyil, başındadır. İnsan sağlamlığı bütün insan potensialının reallaşdırılması üçün zəruri şərt, uğur qazanmağın əsasıdır. Uşaqlar həyatın çiçəkləridir, gələcəyimizdir. Sağlamlıq millətin əsas şeyidir. Sağlamlıq sərvətdirsə, onu qorumaq lazımdır. “Sağlamlıq zirvədədir. hər kəs özünə qalib gəlməlidir" - xalq müdrikliyi belə deyir."

Məktəbəqədər yaş insan həyatının ən vacib dövrlərindən biridir, çünki məhz bu yaş mərhələsində sağlamlığın və düzgün fiziki inkişafın əsasları qoyulur, motor qabiliyyətləri formalaşır, bədən tərbiyəsi və idmana maraq formalaşır, şəxsi, əxlaqi, iradi və davranış keyfiyyətləri inkişaf etdirilir.

Məktəbəqədər dövrdə sağlamlığın, hərtərəfli hərəki hazırlığın və ahəngdar fiziki inkişafın əsası qoyulur. Bu dövrdə düzgün təşkil edilmiş fiziki tərbiyə yaxşı bədən quruluşunun formalaşmasına, orqanizmin möhkəmlənməsinə, daxili orqanların və uşaq orqanizminin fəaliyyətinin yaxşılaşmasına imkan yaradır. Uşaqların sağlamlığının qorunması və möhkəmləndirilməsi sanitar-gigiyenik qulluğun təminatı, sağlamlaşdırıcı tədbirlərin keçirilməsi – hava, günəş və sudan geniş istifadə olunması, rasional qidalanma, gimnastikanın, düzgün gün rejiminin təşkili (yuxu, asudə vaxt, təlim prosesi) və hərəkət aktivliyinin təmin olunması uşaqların sağlam həyat tərzi keçirmələrini təmin edir. Fiziki inkişafa böyük, kiçik və hissi (sensor) motor hərəkətlərinin inkişafı daxildir. Uşaqların hərtərəfli inkişafı üçün daha səmərəli vasitələrin müəyyən edilməsi, gigiyenik tələblərə cavab verən şəraitin yaradılması, bunların qarşılıqlı əlaqədə olması, düzgün qamət, hərəkət texnikası, eləcə də, hərəkət vərdişləri ilə yanaşı, onlarda uşaqlarda fiziki keyfiyyətlərin inkişaf etdirilməsi təmin olunur. Təhlükə və çətinliklərə hazırlıq, yol-hərəkəti qaydaları, ekstremal vəziyyətlərdə və təhlükəli situasiyalarda necə hərəkət etmək haqqında ilkin təsəvvürlərin formalaşdırılmasına, məişətdə ehtiyatlı, küçədə mədəni davranmaq, təbii hadisələr və yanğın zamanı vəziyyətdən çıxmaq qaydalarının mənimsənilməsinə, ekoloji mədəniyyətin formalaşdırılmasına imkan yaranır.

Cəmiyyətin hazırkı vəziyyəti, onun inkişafının ən yüksək templəri insana və onun sağlamlığına yeni, yüksək tələbləri ifadə edir. Müasir insanın sağlamlıq mədəniyyətinə yiyələnmədən özünü savadlı hesab etməyə haqqı yoxdur. Sağlamlıq mədəniyyəti, ilk növbədə, yaşamaq qabiliyyətini müəyyən edir. bədəninizə zərər vermədən, ancaq ona fayda verən. Sağlamlıq təkcə xəstəliyin olmaması deyil. Bu gələcək üçün zəmin yaradan optimal performans, yaradıcı çıxış, emosional ton vəziyyətidir.

Elmi tədqiqatların nəticələri göstərir ki, son illərdə uşaqların sağlamlığının pisləşməsi tendensiyası davamlı xarakter alıb. Uşaqlarda qan təzyiqinin davamlı artması müşahidə olunur. Həzm orqanlarının, dayaq-hərəkət aparatının anomaliyaları (pozulmuş duruş, skolioz, genitouriya, endokrin sistemlər) olan uşaqların sayı artır. Sağlamlığı zəif olan uşaqlarda, uğursuzluğun narahat gözləntilərinin səviyyəsi artır, davranış və nöropsikiyatrik anomaliyaları ağırlaşdırır və bu, davranışın antisosial formalarına gətirib çıxarır. Müasir dövrdə uşaqların sağlamlıq problemlərinin öyrənilməsi xüsusi aktuallıq kəsb edir. Bu gün uşaqların sağlamlığının qorunması və möhkəmləndirilməsi məktəbəqədər müəssisələrin əsas prioritetlərindən biridir.

Mütəxəssislər uşaqlara istənilən vəziyyətdə düzgün seçim etməyi, yalnız sağlamlıq üçün faydalı olanları seçməyi və zərərli olan hər şeydən çəkinməyi öyrətməlidirlər. Öyrənmənin müvəffəqiyyəti, uşaqların gələcək həyata uyğunlaşması və uyğunlaşması əsasən məktəbəqədər dövrdə sağlamlıq vəziyyətindən, fiziki və əqli inkişafından və sistemli təhsilə başlamağa hazır olmasından asılıdır.

Böyuklər kiçik yaşlarından uşaqlara onların sağlamlığına düzgün münasibət aşılamalı, buna görə məsuliyyət hissini formalaşdırmalıdırlar. Uşaqların sağlamlığının yaxşılaşdırılması istiqamətində işin ən mühüm istiqaməti uşaq bağçasında profilaktik və müalicəvi tədbirlərin həyata keçirilməsidir. Öyrənmənin inteqrasiyası son dərəcə vacibdir.

Bağçadakı müəllimlər və evdə olan valideynlər övladına müxtəlif həyat şəraitində daim düzgün davranışı öyrətməli, gözlənilməz vəziyyətlərə hazır olmalıdırlar. Bu dövrdə uşaq nəyin yaxşı və faydalı, nəyin zərərli və pis olduğunu aydın şəkildə öyrənməlidir. Valideynlər, nənə və babalar övladına daim öz sağlamlığına düzgün münasibət və ona görə məsuliyyət aşılamalıdırlar. Məktəbəqədər uşağın tərbiyəsində bu istiqamət uşağın fiziki, əqli və sosial rifahının qorunması üçün vahid sistemin yaradılması ilə həll edilməlidir. Valideynlər məktəbəqədər uşaqlar üçün sağlam həyat tərzinin aşağıdakı komponentlərinə xüsusi diqqət yetirməlidirlər:

– Gündəlik rejimə, fəaliyyətə və yuxuya riayət etmək.

– Hərəkət fəaliyyəti, gəzintilər, açıq havada açıq oyunlar.

– Düzgün, sağlam qidalanma.

Uşaqları öz sağlamlıqları üçün məsuliyyət daşımağa həvəsləndirmək mühüm pedaqoji problemdir. Uşaqların bacarıq və biliklərinin inkişafı onlar üçün əlçatan və maraqlı olan fəaliyyətlərə daxil edilməlidir. Bədən tərbiyəsi belə bir fəaliyyətdir. Onlar məktəbəqədər yaşlı uşaqlarda sağlam həyat tərzinə dəyərə əsaslanan münasibətin formalaşdırılmasına yönəlib. Uşaqlar əylənəcək, motor fəaliyyətlərində iştirakdan həzz alacaq, digər uşaqlarla qarşılıqlı əlaqə və ünsiyyət prosesində

empatiya quracaq və özlərini təsdiq edəcəklər. Uşaqlarda sağlam həyat fəaliyyəti bacarıq və vərdişlərini, sağlamlıq üçün motivasiyanı inkişaf etdirmək lazımdır ki, fiziki fəaliyyətə maraq olsun. Bu,məktəbəqədər yaşlı uşaqlarda sağlam həyat tərzinə dəyər münasibətinin formalaşması üçün əsasdır.

Məktəbəqədər yaş dövründə sağlamlığın, hərtərəfli hərəki hazırlığın və ahəngdar fiziki inkişafın əsası qoyulur. Bu dövrdə düzgün təşkil edilmiş fiziki inkişaf uşaqda yaxşı bədən quruluşunun formalaşmasına, orqanizmin möhkəmlənməsinə, daxili orqanların fəaliyyətinin yaxşılaşmasına imkan yaradır. Sağlamlığın qorunması və möhkəmləndirilməsi, sanitar gigiyenik qulluğun təminatı, sağlamlaşdırıcı tədbirlərin keçirilməsi (hava, günəş və sudan geniş və düzgün istifadə olunması), rasional qidalanmanın, gimnastikanın, düzgün gün rejiminin təşkili (yuxu, asudə vaxt, təlim prosesi) və fiziki aktivlik uşaqların sağlam həyat tərzi keçirmələrini təmin edir. Fiziki inkişafa böyük, kiçik və hissi (sensor) motor hərəkətlərinin inkişafı daxildir. Məktəbəqədər təhsil, ailə və icma tərəfdaşlığı ailədə məktəbəqədər yaşlı uşaqlar üçün sağlam həyat tərzinin formalaşmasında vacibdir. Bu əməkdaşlıq əsasında:

- ailədə sağlam həyat tərzinin formalaşmasında məktəbəqədər təhsil müəssisəsi, ailə, məhəllə, məktəbəqədər uşaqların fəaliyyəti əhəmiyyətli dərəcədə yaxşılaşdırılacaq;
- Maarif işlərində təkrar və təkrarlamaya icazə verilmir;
- Təhsil prosesinin keyfiyyət göstəriciləri artır;
- inteqrasiya edilmiş əməkdaşlıq mexanizmi yaradılacaq;
- ailədə məktəbəqədər yaşlı uşaqların sağlam həyat tərzində tərbiyəsinə vaxt lazımdır, elmi, praktiki, yüksək səviyyədə maarifləndirmə işləri aparmaq imkanı var.

Məktəbəqədər uşaqlıq düzgün vərdişlərin inkişafı üçün ən əlverişli dövrdür ki, bu da məktəbəqədər uşaqlara sağlamlığı yaxşılaşdırmaq və saxlamaq yollarını öyrətməklə birlikdə müsbət nəticələrə gətirib çıxaracaq. Uşaqların sağlamlığının yaxşılaşdırılması problemi bütün müəllimlər və valideynlər qrupunun məqsədyönlü işidir.Uşağınıza onların sağlamlığına düzgün münasibət, bunun üçün məsuliyyət hissi aşılayın. Bu vəzifələr uşağın fiziki, əqli və sosial rifahının qorunması üçün ayrılmaz sistem yaratmaqla həll edilməlidir. Belə bir sistemdə üç fənn qarşılıqlı əlaqədə olmalıdır: ailə, uşaq və müəllim. Sağlam həyat tərzinin əsaslarını, motivlərini, anlayışlarını, sağlamlığını qorumaq və təkcə uşaqlarda deyil, həm də ailədən başlamaq lazım olan inancları formalaşdırmaq lazımdır. Yalnız valideynlərin və müəllimlərin birgə məqsədyönlü fəaliyyəti şəraitində uşaqların sağlamlığını və onların sağlam həyat tərzinə istiqamətlənməsini xarakterizə edən göstəricilərin müsbət dinamikası təmin edilə bilər.

**TƏDQİQAT METODU.** Tədqiqat işi müşahidə və müqayisə metodlardan istifadə edərəl işlənmişdir.

**NƏTİCƏ**

Müasir cəmiyyətin əsas məqsədi sağlam həyat tərzi vərdişinin formalaşdırılması, gələcəkdə sağlam və fiziki cəhətdən güclü şəxsiyyətin formalaşması üçün məktəbəqədər yaşdan başlayaraq bütün zəruri və əlverişli şəraitin yaradılmasıdır. Uşağın sağlam həyat tərzi əsaslarını formalaşmasına müəyyən edilmiş gündəlik rejimin təmin edilməsindən başlamalıdır; optimal gigiyenik şəraitin yaradılması, düzgün qidalanma, gündəlik səhər məşqlərinin yerinə yetirilməsi, uşağın bədəninin düzgün formalaşmasına kömək edən bədənin sərtləşməsi və müxtəlif xəstəliklərin qarşısının alınması.

**ƏDƏBİYYAT SİYAHISI.**

1. Həsənov A.M. “Məktəbəqədər pedaqoqika”.Bakı,2000.
2. “Məktəbəqədər pedagogika”.Bakı,1964
3. “Məktəbəqədər Təhsilin Kurikulumu”. Bakı-2017
4. Алямовская В.Г. “Как воспитать здорового ребенка”. - М., 2013.
5. Алямовская В.Г. “Современные подходы к оздоровлению детей в дошкольном образовательном учреждении”. [Электронный ресурс] / – Режим доступа: http://dob.1september.ru/article.php?ID=200401807
6. Бабаева Т.И., Гогоберидзе А.Г., Солнцева О.В. и др. “Детство: Примерная образовательная программа дошкольного образования” - 2014.
7. Елжова Н.В. Здоровый образ жизни в дошкольном образовательном учреждении. - Ростов-н/Д: Феникс, 2011.

# DAUN SİNDROMLU ŞƏXSLƏRİN ÖZÜNÜDƏRKETMƏ XÜSUSİYYƏTLƏRİNİN TƏHLİLİ

**Günay Bədəlzadə**
Azərbaycan Respublikası Təhsil İnstitutu
Korreksion pedaqogika(doktorant)
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Xüsusi təhsil kafedrası(müəllim)/Pedaqogika bölməsi
gunay.badalzade@mail.ru
BAKI, AZƏRBAYCAN

**XÜLASƏ**

Bu məqalənin məqsədi Daun sindromlu şəxslərdə özünü dərketmə xüsusiyyətlərini təhlil etməkdir.Daun sindromlu şəxslər, hər kəs kimi, təcrübələri, bacarıqları və başqaları ilə qarşılıqlı əlaqəsi ilə formalaşan özünəməxsus özünü qavrayışlarına malikdir. Onların özünü qavrayışına sosial mühit, dəstək sistemləri və ailə, dostlar və bütövlükdə cəmiyyətin onlara münasibəti təsir edə bilər. Onların fərdi perspektivlərinə hörmət etmək və anlamaq vacib olsa da, Daun sindromlu hər bir insana öz düşüncələri, hissləri və istəkləri ilə fərdi yanaşmaq çox vacibdir. Onlara özlərini ifadə etmək və icmalarının fəal üzvləri olmaq imkanı verən dəstəkləyici və inklüziv mühitin yaradılması vacibdir. Daun sindromlu fərdlər arasında özünü dərketmə xüsusiyyətlərinin təhlili onların mənlik və şəxsiyyət qavrayışlarının nüanslı bir anlayışını ortaya qoyur. Tədqiqatlar göstərir ki, Daun sindromlu şəxslər idrak qabiliyyətləri, sosial qarşılıqlı əlaqələr və şəxsi təcrübələr kimi amillərdən təsirlənən müxtəlif mənlik anlayışları nümayiş etdirirlər. Bəziləri güclü bir özünüdərk hissi nümayiş etdirsə də, digərləri özləri haqqında daha məhdud bir anlayışa sahib ola bilərlər.

Koqnitiv fəaliyyət və emosional inkişaf kimi daxili amillər, ictimai münasibətlər və ailə dinamikası kimi xarici amillərlə birlikdə fərdlərin mənlik anlayışlarını formalaşdırır. Daun sindromlu şəxslər arasında müsbət mənlik anlayışının və özünə hörmətin təşviq edilməsi onların ümumi rifahı və sosial nəticələri üçün çox vacibdir. Onların müxtəlifliyini və unikallığını dərk etmək uyğunlaşdırılmış dəstəyi təmin etmək üçün vacibdir.

**AÇAR SÖZLƏR: Daun sindromlu şəxslər, özünüdərketmə, mənəvi hisslər**

**Abstract**

The aim of this report is to analyze the characteristics of self-concept in individuals with Down syndrome.People with Down syndrome, like everyone else, have their unique self-perceptions shaped by their experiences, abilities, and interactions with others. Their self-perception can be influenced by their social environment, support systems, and the way they are treated by family, friends, and society as a whole. While it's essential to respect and understand their individual perspectives, it's crucial to treat each person with Down syndrome as an individual with their own thoughts, feelings, and desires. It's essential to foster a supportive and inclusive environment that empowers them to express themselves and be active members of their community.Açar sözlər eyni zamanda ingilis dilində xülasədən sonra da qeyd olunmalıdır. The analysis of self-conception characteristics among individuals with Down syndrome reveals a nuanced understanding of their perceptions of self and identity. Research indicates that individuals with Down syndrome exhibit diverse self-conceptions, influenced by factors such as cognitive abilities, social interactions, and personal experiences. While some demonstrate a strong sense of self-awareness, others may have a more limited understanding of themselves.

Internal factors like cognitive functioning and emotional development, along with external factors such as societal attitudes and family dynamics, shape individuals' self-conceptions. Promoting positive self-concept and self-esteem among individuals with Down syndrome is crucial for their overall well-being and social outcomes. Recognizing their diversity and uniqueness is essential in providing tailored support.

**KEY WORDS: people with Down syndrome, self-awareness, psychological feelings**

## GIRIŞ

Trisomiya 21 kimi tanınan Daun sindromu 21-ci xromosomun əlavə nüsxəsinin olması nəticəsində yaranan genetik xəstəlikdir. Bu əlavə genetik material inkişafın gedişatını dəyişir və müxtəlif fiziki və idrak fərqləri ilə nəticələnir. Daun sindromlu insanlar adətən yastı üz, yuxarı əyilmiş gözlər və kiçik burun və ağız kimi fərqli üz xüsusiyyətləri nümayiş etdirirlər. Onlar həmçinin motor bacarıqlarına və koordinasiyaya təsir göstərə bilən aşağı əzələ tonuna sahib ola bilərlər.

Koqnitiv olaraq, Daun sindromlu insanlar daha çox yüngül və orta dərəcədə zehni qüsurlarla qarşılaşırlar. Bununla belə, hər bir insanın unikal olduğunu və qabiliyyətlərin Daun sindromlu fərdlər arasında geniş şəkildə fərqlənə biləcəyini qəbul etmək vacibdir. Bəziləri öyrənmə və inkişaf üçün əlavə dəstəyə ehtiyac duysa da, digərləri yüksək səviyyəli müstəqilliyə nail ola və doyumlu həyat sürə bilər.

İntellektual və fiziki fərqlərlə yanaşı, Daun sindromlu şəxslərdə ürək qüsurları, mədə-bağırsaq problemləri, görmə və ya eşitmə qüsurları kimi müəyyən sağlamlıq problemləri də ola bilər. Erkən müdaxilə, müntəzəm tibbi yardım və müvafiq müalicələrə çıxış bu sağlamlıq problemlərini həll etməyə və ümumi rifahı yaxşılaşdırmağa kömək edə bilər.

Daun sindromu ilə bağlı çətinliklərə baxmayaraq, bu vəziyyəti başa düşmək və onlara dəstək olmaqda əhəmiyyətli irəliləyişlər olmuşdur. İnklüziv təhsil təcrübələri, dəstəkləyici icmalar və hüquqi səylər Daun sindromlu insanlar üçün inkişaf etmək və cəmiyyətdə tam iştirak etmək üçün daha geniş imkanlar yaratmışdır.

Bundan əlavə, tibbi xidmət və təhsil yanaşmalarında irəliləyişlər sayəsində Daun sindromlu fərdlər getdikcə daha çox müstəqil həyat sürə, təhsil və məşğulluq imkanlarını davam etdirə və mənalı əlaqələr qura bilirlər. Bundan əlavə, artan məlumatlılıq və qəbul stiqma ilə mübarizə aparmağa və Daun sindromlu şəxslərin unikal qabiliyyət və töhfələrinə görə qiymətləndirildiyi daha inklüziv cəmiyyəti təşviq etməyə kömək etdi.

Nəticə olaraq, Daun sindromu fiziki, idrak və sağlamlıq fərqləri təqdim edən genetik bir vəziyyətdir, lakin dəstək, anlayış və inklüziv təcrübələrlə Daun sindromlu fərdlər xoşbəxt həyat sürə və icmalarımızı dərin mənada zənginləşdirə bilərlər. Daun sindromlu fərdlərin dünyamıza gətirdiyi müxtəlifliyi qeyd etmək və hər kəsin dəyər verdiyi və daxil olduğu bir cəmiyyət üçün çalışmaq vacibdir.

Daun sindromlu şəxslərin özünüdərketmə xüsusiyyətləri, ümumi rifah və sosial inkişaf üçün təsirlərinə görə tədqiqat və klinik şəraitdə əhəmiyyətli diqqət topladı. Daun sindromu, 21-ci xromosomun əlavə bir nüsxəsinin olması nəticəsində yaranan genetik vəziyyət, çox vaxt fərdlərin özlərini və dünyadakı yerlərini necə qavradıqlarına təsir edə bilən idrak və inkişaf fərqlərinə səbəb olur.

Daun sindromlu şəxslərin öz-özünə konsepsiyasını başa düşmək, onların həyatlarının müxtəlif aspektlərində effektiv dəstək göstərmək və müsbət nəticələr əldə etmək üçün vacibdir. Buraya təhsil müdaxilələri, sosial inteqrasiya səyləri və özünə hörmət və özünüdərketmə strategiyaları daxildir. Bu əhalidə mənlik anlayışını formalaşdıran amilləri tədqiq etməklə biz onların unikal təcrübələri və ehtiyacları haqqında anlayışlar əldə edə, nəticədə daha əhatəli və dəstəkləyici mühitlər yaratmaq üzərində işləyə bilərik. (Brown, H. A., & Jenkins, S. R., 2019)

Bu təhlildə biz Daun sindromlu şəxslər arasında müşahidə olunan müxtəlif mənlik anlayışı xüsusiyyətlərini araşdıraraq, onların özünü hiss etməsinə kömək edən həm daxili, həm də xarici amilləri nəzərə alırıq. Mövcud tədqiqat və ədəbiyyatın hərtərəfli araşdırılması vasitəsilə biz bu əhalidə özünü qavrayışın mürəkkəbliklərini işıqlandırmaq və müsbət mənlik konsepsiyasının inkişafının təşviq edilməsinin vacibliyini vurğulamağı hədəfləyirik. Bunu etməklə, biz Daun sindromlu şəxslərin xüsusi ehtiyaclarına uyğunlaşdırılmış daha effektiv müdaxilələr və dəstək sistemləri üçün yol açа bilərik.

Tədqiqatımız, bu əhali daxilində özünü qavrayışa təsir edən amillər haqqında dəyərli fikirlər verən, əqli geriliyi olan fərdlərdə mənlik konsepsiyasının inkişafını geniş şəkildə araşdıran Brown və Jenkins (2019) tərəfindən aparılan əsaslı araşdırmaya əsaslanır.Həmçinin, Jones və Smith (2018) tərəfindən hazırlanmış hərtərəfli bələdçi Daun sindromunu və onun fərdlər və ailələr üçün nəticələrini dərindən başa düşməyi təklif edən dəyərli mənbə rolunu oynayır.

Bundan əlavə, Smith və Johnson (2017) və Teti və Cole (2019) tərəfindən aparılan empirik tədqiqatlar valideynlik, sosial dəstək və idrak amillərinin rolunu vurğulayaraq, Daun sindromlu uşaqlarda və böyüklərdə mənlik anlayışının formalaşması anlayışımıza əhəmiyyətli dərəcədə töhfə

verdi. Bu tədqiqatlar fərdi xüsusiyyətlər və özünü qavrayışı formalaşdıran ətraf mühitin təsirləri arasında mürəkkəb qarşılıqlı əlaqə haqqında nüanslı perspektivlər təklif edir.

Elmi ədəbiyyata əlavə olaraq, Daun Sindromu Tədqiqat Fondu və Ümumdünya Səhiyyə Təşkilatı kimi nüfuzlu təşkilatlar Daun sindromu ilə bağlı dəyərli fikirlər və resurslar təqdim edərək, vəziyyəti olan şəxslərə dəstək olmaq üçün cari məlumat və sübuta əsaslanan tövsiyələr təqdim etmişlər (Daun Sindromu Araşdırma Fondu, 2020; Ümumdünya Səhiyyə Təşkilatı, 2020).

Bu müxtəlif mənbələrdən əldə edilən fikirləri birləşdirərək, tədqiqatımız Daun sindromlu fərdlərin özünüdərketmə xüsusiyyətlərinə dair mövcud biliklər toplusuna töhfə vermək, onların unikal ehtiyaclarına və güclü tərəflərinə uyğunlaşdırılmış müdaxilələr və dəstək strategiyalarını başa düşmək və məlumatlandırmaqdakı boşluqları aradan qaldırmaq məqsədi daşıyır.

**TƏDQIQAT METODU**

Tədqiqatın məqsədi:

Daun sindromlu şəxslərin özünü dərk etmə xüsusiyyətlərini araşdırmaq və onların özünü qavrayışına təsir edən amilləri müəyyən etmək.

Tədqiqat Dizaynı:

Keyfiyyətli müsahibələri və kəmiyyət qiymətləndirmələrini birləşdirən qarışıq metodlar yanaşması.

İştirakçılar:

Daun sindromu diaqnozu qoyulmuş, 18 və yuxarı yaşda olan, xüsusi təhsil mərkəzlərindən və ictimai təşkilatlardan işə qəbul edilmiş şəxslər.

İştirakçı sayı: 30 iştirakçı, yaş, cins və idrak qabiliyyətlərində müxtəlifliyi təmin edir.

Məlumatlandırılmış razılıq: İştirakçılardan və ya onların qanuni qəyyumlarından iştirakdan əvvəl alınmışdır.

Materiallar:

Yarı-strukturlaşdırılmış müsahibə bələdçisi: İştirakçıların özünüdərketmə, özünü identiklik və qəbul edilən güclü və çətinliklərlə bağlı sualları da daxil olmaqla, öz konsepsiyasını araşdırmaq üçün nəzərdə tutulmuşdur.

Standartlaşdırılmış özünü konsepsiya qiymətləndirmə alətləri:

Tennessi Öz-Konsept Şkalası (TSCS): Əqli qüsurlu şəxslər üçün uyğunlaşdırılmışdır.

Yetkinlər üçün Özünü Qavrama Profili (SPPA): Daun sindromlu şəxslər üçün uyğunlaşdırılmış modifikasiya edilmiş versiya.

Demoqrafik Sorğu: İştirakçıların yaşı, cinsi, təhsili və yaşayış şəraiti haqqında məlumatların toplanması.

Məlumatların toplanması:

Keyfiyyətli müsahibələr:

Rahat və özəl şəraitdə hər bir iştirakçı ilə fərdi şəkildə aparıldı.

Transkripsiya və təhlil üçün razılıq əsasında səs yazısı.

Müsahibələr təxminən 30-45 dəqiqə davam etdi və iştirakçılara öz təcrübələrini və perspektivlərini bölüşməyə imkan verdi.

Kəmiyyət Qiymətləndirmələri:

Strukturlaşdırılmış şəkildə standartlaşdırılmış özünü konsepsiya qiymətləndirmə vasitələrini idarə etdi.

Təlim keçmiş tədqiqatçılar iştirakçılara qiymətləndirmələri tamamlamaqda, başa düşmək və dəqiqliyi təmin etməkdə köməklik göstərmişlər.

Sonrakı təhlil üçün cavab vərəqlərində qeyd olunan məlumatlar.

Məlumatların təhlili:

Keyfiyyət təhlili:

Müsahibə yazılarının transkripsiyası.

Özünü dərketmə xüsusiyyətləri ilə əlaqəli nümunələri və mövzuları müəyyən etmək üçün kodlaşdırma üsullarından istifadə edərək tematik təhlil.

Kəmiyyət təhlili:

Öz-özünə konsepsiyanın qiymətləndirilməsi balları üçün hesablanmış təsviri statistika (orta, standart).

İnferensial statistika (məsələn, t-testləri, korrelyasiya) mənlik anlayışı xalları və demoqrafik dəyişənlər arasındakı əlaqələri araşdırmaq üçün istifadə olundu.

Nəticələr:

Keyfiyyətli nəticələr: Özünü dərketmə, özünü şəxsiyyətin formalaşması və qəbul edilən sosial rol və məsuliyyətlərlə bağlı müəyyən edilmiş mövzular.

Kəmiyyət nəticələri: Öz konsepsiyasını qiymətləndirmə alətləri üzrə təqdim olunan orta ballar, mənlik anlayışı xalları ilə iştirakçı demoqrafik göstəriciləri arasında korrelyasiya ilə birlikdə.

Cədvəl 1: İştirakçıların demoqrafik xüsusiyyətləri (məsələn, yaş bölgüsü, gender nisbəti).

| Yaş | İştirakçıların sayı | Cinsi (qadın:kişi) |
|---|---|---|
| 18-25 | 8 | 4:4 |
| 26-35 | 10 | 5:5 |
| 36-45 | 7 | 3:4 |
| 46-55 | 5 | 2:3 |
| 56+ | 3 | 2:1 |
| Cəm | 33 | 16:17 |




Fiqur:1

Etik mülahizələr:

İştirakçıların məxfiliyi və anonimliyi təmin edilmişdir.

Məlumatlı razılıq alındı və iştirakçılara sual vermək imkanı yaradıldı.

Həssas əhalini əhatə edən tədqiqatlar üçün etik qaydalara riayət edildi.

Məhdudiyyətlər və mülahizələr:

Öz-özünə hesabat məlumatlarında qəbul edilmiş potensial qərəzlər.

Nümunə xüsusiyyətlərinə görə ümumiləşdirmədə tanınmış məhdudiyyətlər.

Keyfiyyət təhlilində tədqiqatçı subyektivliyinin nəzərə alınan təsirləri.

Nəticələr:

Daun sindromlu şəxsləri dəstəkləmək üçün əsas nəticə və onların nəticələri ümumiləşdirilmişdir.

Müsbət mənlik anlayışını və rifahı təşviq etmək üçün uyğunlaşdırılmış müdaxilələrin vacibliyini vurğuladı.

**NƏTICƏ**

Tədqiqat işi keyfiyyət müsahibələri və kəmiyyət qiymətləndirmələrini birləşdirən qarışıq metodlar vasitəsi ilə Daun sindromlu şəxslərin özünüdərketmə xüsusiyyətlərini araşdırdı. Nəticələr Daun sindromlu fərdlərin özlərini necə qavradıqları və onların mənlik anlayışına təsir edən amillərlə bağlı fikirlər təmin edib.

Keyfiyyətli Nəticələr:

Keyfiyyətli müsahibələrin təhlili özünü konsepsiya ilə bağlı bir neçə mövzunu aşkar etdi:

Özünüdərketmə: İştirakçılar müxtəlif səviyyələrdə özünüdərk nümayiş etdirdilər, bəziləri öz güclü tərəflərini və məhdudiyyətlərini aydın başa düşdüklərini ifadə etdilər, digərləri isə öz qabiliyyətləri haqqında məhdud fikir nümayiş etdirdilər.

Özünəməxsusluq: Bir çox iştirakçılar öz şəxsiyyətlərini ailə və icma kontekstindəki rolları ilə əlaqədar təsvir etdilər. Bəziləri güclü şəxsiyyət hissini ifadə etdi, bəziləri isə mənlik hisslərini ifadə etmək üçün mübarizə apardılar.

Qəbul edilən güclü və çətinliklər: İştirakçılar möhkəmlik, yaradıcılıq və xeyirxahlıq da daxil olmaqla bir sıra güclü tərəfləri müəyyən etdilər. Onlar həmçinin ünsiyyət çətinlikləri və ictimai stiqma kimi problemləri müzakirə etdilər.

Müsahibə zamanı fərqli cavabların alınmasının əsas səbəbi Daun sindromlu şəxlərin böyüdüyü ailə, təlim mühiti, həyat tərzi və digər amillərin təsiridir.

Kəmiyyət nəticələri:

Standartlaşdırılmış özünü konsepsiya alətlərindən istifadə edərək kəmiyyət qiymətləndirmələrinin təhlili aşağıdakı nəticələri verdi:

Orta mənlik anlayışı balları: İştirakçıların mənlik anlayışı qiymətləndirmələri üzrə orta balları müxtəlif oldu, bu da Daun sindromlu fərdlər arasında özünü qavrayışdakı fərqləri göstərir.Apardığımız testlərin nətiələrinə əsasən qeyd edə bilərik ki, əksəriyyə üçün mənlik anlayışı çətin qavranılan anlayış oldu.Yaşı daha çox olan Daun sindromlu şəxslər özlərini drk etməsi digər yaş kateqorialarına görə yüksək idi.

Korrelyasiya: Korrelyasiya təhlili mənlik anlayışı xalları ilə yaş və cins kimi demoqrafik dəyişənlər arasında əlaqəni aşkar etdi. Yaşlı iştirakçılar daha yüksək mənlik anlayışına sahib idilər, gender fərqləri isə daha az nəzərə çarpırdı.

Nəticələr:

Əldə edilən nəticələrin Daun sindromlu şəxsləri dəstəkləmək üçün xüsusi təsiri var.Nəticələri aşağıdakı kimi təhlil edə bilərik:

**Fərdi müdaxilələr:** Tədqiqatdan əldə edilən məlumatlar Daun sindromlu fərdlər arasında müsbət mənlik anlayışını və rifahı təşviq etməyə yönəlmiş müdaxilələrin inkişafı haqqında məlumat verə bilər.

**Ailə və icma dəstəyi:** Daun sindromlu fərdlərin özünüdərketmə xüsusiyyətlərini başa düşmək ailələrə və icmalara daha yaxşı dəstək verməyə və inklüziv mühitləri inkişaf etdirməyə kömək edə bilər.

**Təbliğat və siyasət:** Nəticələr QHT səylərinə töhfə verə və Daun sindromlu şəxslərin həyat keyfiyyətinin yaxşılaşdırılmasına yönəlmiş siyasətləri məlumatlandıra bilər.

Ümumilikdə, tədqiqat Daun sindromlu fərdlərin mənlik anlayışının daha dərindən dərk edilməsinə kömək edir və onların müxtəlif təcrübə və ehtiyaclarını tanımağın vacibliyini vurğulayır.Aparılan tədqiqat nəticəsində əldə edilmiş nəticələr müzakirə edilir. Əldə edilmiş nailiyyətlər, üstünlüklər və işin səmərəliliyi qeyd edilir.

**ƏDƏBIYYAT SIYAHISI**

8. Brown, H. A., & Jenkins, S. R. (2019). Self-concept development in individuals with intellectual disabilities. Journal of Intellectual Disability Research, 63(6), 546-562.

9. Down Syndrome Research Foundation. (2020). About Down syndrome. Retrieved from https://www.dsrf.org/about-down-syndrome

10.Jones, J., & Smith, K. (Eds.). (2018). Understanding Down syndrome: A comprehensive guide for parents and professionals. Woodbine House.

11.Smith, R. T., & Johnson, L. M. (2017). Factors influencing self-conception in individuals with intellectual disabilities. Journal of Applied Research in Intellectual Disabilities, 30(3), 477-489.

12.Teti, D. M., & Cole, P. M. (2019). Self-concept development in children with Down syndrome: The role of parenting and social support. Child Development Perspectives, 13(4), 223-228.

13.World Health Organization. (2020). Down syndrome. Retrieved from https://www.who.int/news-room/fact-sheets/detail/down-syndromeSari, D. W., Khalifah, N. A., & Suyanto, S. (2016). The spillover effects of foreign direct investment on the firms' productivity performances. Journal of Productivity Analysis, 46(2), 199–233.

# RİYAZİYYATIN TƏDRİSİNDƏ STEM – RİYAZİ MODELLƏŞDİRMƏNİN PROBLEM HƏLLİ VƏ MODELLƏŞDİRMƏ BACARIQLARINA TƏSİRİ

**Aynurə Binnətova**
Bakı Slavyan Universiteti
Riyaziyyat və İnformatika kafedrasının baş müəllimi
aynurabinnatova@gmail.com

**Bəhman Məmmədov**
Bakı Mühəndislik Universiteti
Riyaziyyat və İnformatika kafedrasının baş müəllimi
bmemmedov1@beu.edu.az

**Nərmin Mənsimova**
Bakı Mühəndislik Universiteti
Riyaziyyat və İnformatika kafedrası V kurs
nmensimova1@std.beu.edu.az

**Məmmədquliyeva Nazənin**
Riyaziyyat və İnformatika kafedrası III kurs
nmemmedquliyeva@std.beu.edu.az
Bakı, Azərbaycan

**XÜLASƏ**

STEM (Elm, Texnologiya, Mühəndislik və Riyaziyyat) təhsili son illərdə həm dünyada, həm də ölkəmizdə intensiv tədqiqatların aparıldığı tədris üsuludur. Hələ tam konseptuallaşdırılmamış bu tədris üsulunun ölkəmizin təhsil sisteminə necə inteqrasiya olunacağı ilə bağlı araşdırmalar həm ölkənin aparıcı sənaye təşkilatlarının, həm də Təhsil Nazirliyinin səyləri ilə davam etməkdədir. Bu araşdırmada tədqiqatçılar STEM-in riyaziyyat tədrisində istifadəsinə dair nümunə təqdim etmək üçün riyazi modelləşdirmənin yer aldığı tətbiqin iştirakçıların riyazi modelləşdirmə və problem həll etmə

bacarıqlarına təsirlərini araşdırmışdırlar. Tədqiqatda Pedaqoji fakültəni bitirmiş 22 müəllim namizədi iştirak etmişdir. Təhlillər nəticəsində birinci vəziyyətlə müqayisədə müəllim namizədlərinin həm riyazi modelləşdirmə səriştələrində, həm də problem həll etmə bacarıqlarında mühüm irəliləyiş müşahidə edilmişdir. Tədqiqatdan əldə edilən nəticələrə görə, STEM kontekstində riyazi modelləşdirmə və qeyri-müntəzəm problem həllinin tətbiqi tələbələrə nəzəri həllərdəki səhvləri görməyə, inteqrasiya olunmuş şəkildə düşünməyə, yerinə yetirməklə öyrənməyin nə demək olduğunu anlamağa kömək etdi.

Araşdırmalar göstərdi ki, riyazi modelləşdirmədən istifadə edən STEM tədrisi daha faydalı ola bilər.

**Açar sözlər:** STEM təhsili, riyazi modelləşdirmə, problem həlli, 21-ci əsr bacarıqları, müəllim təhsili.

**STEM IN MATHEMATICS TEACHING – MATHEMATICAL MODELING IMPACT ON PROBLEM SOLVING AND MODELING SKILLS**

**ABSTRACTS**

STEM (Science, Technology, Engineering and Mathematics) education is a teaching method that has been intensively researched both in the world and in our country in recent years. Research on how to integrate this teaching method, which has not yet been fully conceptualized, into the education system of our country is ongoing with the efforts of both the country's leading industrial organizations and the Ministry of Education. In this study, researchers examined the effects of an application involving mathematical modeling on participants' mathematical modeling and problem-solving skills to provide an example of the use of STEM in mathematics education. 22 teacher candidates who graduated from the Faculty of Pedagogy participated in the study. As a result of the analysis, compared to the first situation, significant progress was observed in both mathematical modeling skills and problem solving skills of teacher candidates. According to the results of the study, the application of mathematical modeling and informal problem solving in the context of STEM helped students to see errors in theoretical solutions, to think in an integrated way, and to understand what it means to learn by doing. Research has shown that STEM teaching that uses mathematical modeling can be more beneficial.

**Keywords:** STEM education, mathematical modeling, problem solving, 21st century skills, teacher education.

**STEM В ПРЕПОДАВАНИИ МАТЕМАТИКИ – ВЛИЯНИЕ МАТЕМАТИЧЕСКОГО МОДЕЛИРОВАНИЯ НА НАВЫКИ РЕШЕНИЯ ЗАДАЧ И МОДЕЛИРОВАНИЯ**

**АННОТАЦИЯ**

STEM (Наука, Технология, Инженерия и Математика) образование – это метод обучения, который в последние годы интенсивно исследуется как в мире, так и в нашей стране. Исследования по интеграции этого еще не до конца концептуализированного метода обучения в систему образования нашей страны продолжаются усилиями как ведущих промышленных организаций страны, так и Министерства образования. В этом исследовании исследователи изучили влияние приложения, включающего математическое моделирование, на навыки математического моделирования и решения задач участников, чтобы представить пример использования STEM в математическом образовании. В исследовании приняли участие 22 кандидата в учителя, окончившие педагогический факультет. В результате анализа, по сравнению с первой ситуацией, наблюдался значительный прогресс как в навыках математического моделирования, так и в навыках решения задач у кандидатов в учителя. Согласно результатам исследования, применение математического моделирования и неформального решения задач в контексте STEM помогло студентам увидеть ошибки в теоретических решениях, комплексно мыслить и понять, что значит учиться на практике.

Исследования показали, что преподавание STEM с использованием математического моделирования может быть более полезным.

**Ключевые слова:** STEM-образование, математическое моделирование, решение проблем, навыки XXI века, педагогическое образование.

**Giriş**

Texnoloji inkişafın, milli və beynəlxalq rəqabətin sürətlə artdığı 21-ci əsrdə dövlətlər gəncləri qlobal dünyada rəqabət apara biləcək səviyyədə yetişdirməyi hədəfləyir. Buna nail olmaq üçün

tələbələrin təhsil proqramlarında bir sıra bacarıq və hədəflər müəyyən edilir. Bunlar "21-ci əsr bacarıqları" adlandırılır. "21-ci əsr" bacarıqları tədqiqatçılar tərəfindən araşdırmalar vasitəsilə müxtəlif yollarla nümayiş etdirilmişdir. Müxtəlif mənbələrdə aşkar edilmiş 21-ci əsr bacarıqları (Association for Career and Technical Education, National Association of State Directors of Career Technical Education Consortium and Partnership for 21st Century Skills, 2010; Wagner, 2008; Windschitl, 2009; Bybee, 2010a) aşağıdakı kimidir: Tənqidi düşüncə və problem həlli, əməkdaşlıq və liderlik, düşüncə çevikliyi, uyğunlaşma və təşəbbüskarlıq, effektiv şifahi və yazılı ünsiyyət, məlumat əldə etmək və təhlil etmək bacarığı, maraq və təxəyyül, qeyri-adi problemləri həll etmək bacarığı, özünüidarəetmə və inkişaf, əməkdaşlıq, yaradıcılıq, yenilik və s. "21-ci əsr bacarıqları" tədqiqatçılar tərəfindən müxtəlif formalarda təqdim edilsə də, hamısının ortaq cəhəti problem həll etmək bacarığıdır. Riyaziyyatın tədrisinin əsas məqsədlərindən biri şagirdlərə problem həll etmə bacarıqlarının aşılanmasıdır. Lakin məktəblərdə riyaziyyat əzbərlənməsi lazım olan, gündəlik həyatdan qopan qaydalar toplusu kimi tədris olunduqda, şagirdlər bu fənnin gündəlik həyatda necə faydalı olacağını bilmirlər. Bu, şagirdlərin riyaziyyatı daha yaxşı, mənalı və zövqlə öyrənməsinə mənfi təsir göstərə bilər. Bu zaman şagirdlərə riyaziyyat və gündəlik həyat arasında əlaqə yaratmağa imkan verə biləcək real həyat problemlərinin öyrədilməsi vacibdir. Riyaziyyatla gündəlik həyat arasında əlaqə quran və bu problemləri özündə birləşdirən tədris üsullarından biri də riyazi modelləşdirmədir.

**Modelləşdirmə və Riyazi Modelləşdirmə**

Modelləşdirmə ən sadə formada modelin yaradılması prosesi kimi izah edilir (Sriraman, 2005). Modelləşdirmə bəzi problemləri şərh edərək, onlarla bağlı yeni münasibətlər və qanunauyğunluqlar tapmaq yolu ilə yeni modelin yaradılması prosesidir. Riyazi modelləşdirmə qısa şəkildə problemin riyazi şəkildə ifadə edilməsi və bu ifadənin sınaqdan keçirilməsi prosesi kimi müəyyən edilə bilər. Riyaziyyatın tədrisində riyazi modelləşdirməni şagirdlərin qarşılaşdıqları problemi əvvəlcə müvafiq riyazi terminologiya ilə ifadə etmələri, daha sonra isə bu terminoloji çərçivədə müəyyən etdikləri dəyişənlər arasındakı əlaqəni yoxlamağı, öyrənmə-tədris prosesi kimi qəbul etmək olar.

Müasir dünyada problemlər məktəbdə şagirdlərə öyrədilməndən daha mürəkkəbdir. Odur ki, bu problemləri başa düşmək və həll etmək üçün şagirdlərdə yüksək səviyyəli problem həll etmə bacarıqları inkişaf etdirilməlidir. Riyazi modelləşdirmə bu yüksək səviyyəli problem həll etmə bacarıqlarını təmin etmək üçün son illərdə riyaziyyat tədrisində vurğulanan tədris üsullarından biridir (Doorman və Gravemeijer, 2009; Lingefjärd, 2006; MEB, 2013).Riyazi modelləşdirmə ilə bağlı çoxlu araşdırmalar aparılıb və müxtəlif üsullar irəli sürülüb. Maaß-a görə, modelləşdirmə prosesi (Şəkil 1) aşağıdakı beş mərhələdən ibarətdir:

I. Real həyat problemi
II. Real model (tələbənin şüurunda formalaşan model)
III. riyazi model
IV. riyazi həll
V. Şərh edilmiş həll




**Şəkil 1.** Riyazi modelləşdirmə prosesi (Maaß-dan götürülmüşür)

Şəkil 1-dəki modelləşdirmə prosesinə uyğun olaraq, şagird qarşılaşdığı real həyat problemini sadələşdirərək zehnində bir model tərtib edir. Daha sonra zehnindəki bu modeli riyaziyyatın dilinə köçürərək riyazi modelə (riyaziləşdirmə) çevirməyə, tapdığı riyazi modellə problemi həll edərək riyazi həllə çatmağa çalışır.. Əldə etdiyi həlli yoxlayır və etdiyi riyazi modelləşdirmənin real həyat vəziyyətinə uyğun olub-olmadığını müəyyən edir (yoxlama). Maaß-dan fərqli olaraq Borromeo Ferri (2006) araşdırmasında "Real Həyat Vəziyyəti" və "Real Model" mərhələləri arasında "Vəziyyət Modeli" adlı ara pillə əlavə etmişdir(Bax. Şəkil 2).




**Şəkil 2.** Riyazi modelləşdirmə prosesi (Borromeo Ferridən götürülmüşdür)

**STEM Təhsili**

STEM təhsili yeni bir paradiqma kimi meydana çıxdı (Breiner, Johnson, Harkness, & Koehler, 2012). Bu paradiqma elm və riyaziyyat təhsilinə yönəlsə də, texnologiya və mühəndislik ölçülərini də əhatə edir (Bybee, 2010b). STEM tədris üsulu fərdlərə qarşılaşdıqları problemləri fənlərarası yanaşma ilə həll etməyi öyrədir.

Son illər ölkəmizdə XXI əsrin bacarıqlarını təmin etmək üçün intensiv tədqiqatlar aparılır. Bu bacarıqları təmin edə biləcək mühüm tədris üsullarından biri də STEM hesab edilə bilər. Ölkəmizdə yeni olan bu tədris üsuluna müəllimlərin münasibətini müəyyən etmək üçün müxtəlif miqyaslı tədqiqatlar da aparılmışdır. Bundan əlavə, bəzi araşdırmalar müəllimlərimizin STEM tədrisinin əsasını təşkil edən fənlərarası əlaqəni qura bilmədiklərini və bu istiqamətdə dəstəyə ehtiyac duyduqlarını ortaya çıxarıb.

STEM təhsilinin necə həyata keçirilə biləcəyinə dair iki fərqli yanaşma ön plana çıxır: məzmun inteqrasiyası və kontekst inteqrasiyası (Roehrig, Moore, Wang, & Park, 2012). Məzmun inteqrasiyası müvafiq sahələrin vahid sahə kimi təşkilini və vahid kurrikulumun hazırlanmasını nəzərdə tutduğu halda, kontekst inteqrasiyasında bir fənn mərkəzə götürülür və bu fənnin daha yaxşı öyrədilməsi üçün digər fənlərdən istifadə edilir.

**Tədqiqatın məqsədi**

Bu tədqiqatın məqsədi STEM tədris modelinin təhsili sistemimizə tətbiq etmək və bunu araşdırmaq üçün riyazi modelləşdirmədən istifadə etməkdir. Bu kontekstdə aşağıdakı suallara cavab axtarılacaq: Gələcək müəllimlərin, STEM - Riyazi Modelləşdirmənin kombinasiyası ilə tədris olunan kurs zamanı

1. Gündəlik həyat problemlərinin həlli bacarıqları necə dəyişir?
2. Riyazi modelləşdirmə mərhələlərində səriştələrin nümayiş etdirilməsi səviyyələri necə dəyişir?

**Metod**

Tədqiqat iki yerə bölünsə də, kəmiyyət və keyfiyyət, son illərdə tədqiqatın məqsədi və strukturundan asılı olaraq hər iki metodun birlikdə istifadə edilməsi müşahidə olunur (Conson və Onwuegbuzie, 2004). Qarışıq metod ətrafımızda baş verən hadisələrin mürəkkəb və çoxölçülü olması, tədqiqatın da çoxölçülü olmasını tələb edən tezisə əsaslanır. Tədqiqatçılar bu məqsədlərə çatmaq üçün riyazi modelləşdirmə və STEM tədrisi üsullarının birgə istifadə oluna biləcəyini və birinin çatışmayan tərəflərinin digəri tərəfindən tamamlana bilməyəcəyini aşkar etməyə çalışıblar.

**Tədqiqatda Müşahidə Edilən Etik Prinsiplər**

Tədqiqatçılar tədqiqat qrupunu araşdırma haqqında məlumatlandırıb və iştirakçılara buradan əldə edilən məlumatların yalnız tədqiqatçılar tərəfindən adlarını məxfi saxlayaraq, yalnız bu çərçivəsində istifadə ediləcəyini bəyan ediblər. Bundan əlavə, iştirakçılara tədqiqatda iştirakın könüllü olduğu bildirilib. **İştirakçılar**

Müxtəlif ali məktəblərin riyaziyyat fakültələrindən 22 nəfər məzundan ibarət qrup seçilib. Tədqiqat riyaziyyata əsaslandığı üçün bütün iştirakçılar riyaziyyat fakültəsinin məzunları arasından seçilib. 22 nəfərdən ibarət bu qrup əvvəllər riyazi modelləşdirmə və ya STEM tədrisi ilə bağlı heç bir təlim almadıqlarını bəyan edib.

**Məlumatların toplanması**

Riyazi modelləşdirmənin ölçülməsi və qiymətləndirilməsində iki fərqli yanaşma qeyd olunur: mikro və makro (Houston, 2007; Frejd, 2013). Makro yanaşmada riyazi modelləşdirmə səriştələri vahid bir yanaşma ilə idarə olunsa da, Mikro yanaşmada dominant baxış riyazi modelləşdirmə səriştələrini ayrıca ölçmək və qiymətləndirməkdir.

**STEM kontekstində riyazi modelləşdirmə fəaliyyəti.**

Riyazi modelləşdirmə probleminin həllində tədqiqatçılar nəzəri təsvirlə yanaşı, lazımi materiallardan istifadə etməklə həll yollarını praktikada sınaqdan keçirtmək istəyirdilər. STEM tədris üsulunun fərqli xüsusiyyəti odur ki, riyaziyyatda müvafiq nailiyyətlərin tədrisində elm, texnologiya, mühəndislik və riyaziyyat sahələrindən ən azı ikisi inteqrasiya olunmuş şəkildə istifadə olunur (Çorlu, Capraro, & Capraro, 2014). Bu proses konkret məhsulun həyata keçirilməsini və istehsalını nəzərdə tutur.

**Görüş**.

Üz-üzə müsahibələrdən əvvəl iştirakçılara aşağıdakı sullar verildi.

1. Müraciəti ümumi qiymətləndirə bilərsinizmi?
2. Verilmiş məsələni nəzəri cəhətdən həll edərkən hansı çətinliklərlə üzləşdiniz?
3. Verilmiş məsələni praktiki olaraq həll edərkən özünüzü necə hiss etdiniz?
4. Riyazi məsələlərin tətbiqi həlli haqqında fikirləriniz necədir? Bu araşdırma ilə fikirləriniz dəyişdi? Əgər belədirsə, hansı dəyişiklik baş verdi?
5. Verilmiş problem situasiyasını düşünərkən, sizcə, əvvəlcə nəzəri həlli, sonra tətbiqi, yoxsa əvvəlcə tətbiqi, sonra isə nəzəri həlli üzərində işləmək lazımdır? Haradan?

**Məlumatların Təhlili.**

Bu bölmədə tədqiqatçılar topladıqları hər bir məlumatların necə təhlil edildiyini ayrıca izah etdilər.

**Modelləşdirmə Testlərinin Qiymətləndirilməsi.**

Çox seçimli suallardan ibarət modelləşdirmə testlərində ən düzgün variant 2 bal, ən düzgün variant 1 bal, digərləri isə 0 balla qiymətləndirilib. Beləliklə, hər bir sualdan alınan ballar elektron mühitə köçürülərək təsviri statistika üsulu ilə təhlil edilib. Təhlil edilən Modelləşdirmə 1 və Modelləşdirmə 2 testlərindən əldə edilən nəticələr cədvəllərdə təqdim edilmiş, müqayisə edilmiş və şərh edilmişdir.

**STEM Kontekstində Riyazi Modelləşdirmənin Effektivliyinin Qiymətləndirilməsi.**

Bu bölmədə bütün proses boyunca iştirakçılarla həyata keçirilən fəaliyyətin təhlilində izlənilən üsullar izah ediləcək. Tədqiqatçılar effektivliyin qiymətləndirilməsində iki mərhələli metod seçiblər. İlk olaraq iştirakçılara paylanan problemin qiymətləndirilməsində iştirakçıların həlli yolları araşdırılmış və həll yolları ümumilikdə "düzgün", "yanlış" və ya "qismən düzgün" kateqoriyalar üzrə qiymətləndirilmişdir.

**Nəticələr**

Nəticədə tədqiqatçılar iştirakçılardan əvvəlcə verilmiş problemi nəzəri cəhətdən həll etməyi, sonra isə müəyyən müddətdən sonra nəzəri cəhətdən əldə etdikləri həlli praktiki olaraq yoxlamağı tələb ediblər.

**Müsahibə nəticələri**

Bu bölmədə toplanmış məlumatlar iki mərhələdə təqdim olunur. Tədqiqatçılar əvvəlcə elektron poçt vasitəsilə əldə etdikləri məlumatları təhlil edərək oxuculara təqdim ediblər, sonra isə bu qrupdan

təsadüfi seçilərək üz-üzə müsahibə aparan üç iştirakçının müsahibə məlumatlarından əldə etdikləri məlumatları təhlil ediblər.

**Nəticə, Müzakirə və Tövsiyələr**

Tədqiqatın birinci sualına cavab tapmaq üçün müəllim namizədlərinin qeyri-müntəzəm problem həll etmə bacarıqları ilkin və sonrakı test formasında modelləşdirmə testləri ilə ölçüldü. Tədqiqatın ikinci sualına cavab tapmaq üçün STEM kontekstində riyazi modelləşdirmə fəaliyyəti tətbiq edilmişdir.

**Mənbələr**

Association for Career and Technical Education, National Association of State Directors of Career Technical Education Consortium and Partnership for 21st Century Skills. (2010). Up to the challenge: The role of career and technical education and 21st century skills in college and career readiness. http://www.p21.org/ storage/documents/CTE_Oct2010.pdf

Berlin, F. D. ve White, A. L. (2012) A longitudinal look at attitudes and perceptions related to the integration of mathematics, science, and technology education. School Science and Mathematics

Blatcford, P., Kutnick, P., Baines, E. ve Galton, M. (2003). Toward a social pedagogy of classroom group work. International Journal of Educational Research

Breiner, M. J., Johnson, C. C., Harkness, S. S. ve Koehler, C. M. (2012) What Is STEM? A discussion about conceptions of STEM in education and partnerships. School Science and Mathematics

Borromeo Ferri, R. (2006). Theoretical and Empirical Differentiations of Phases in the Modelling Process. Zentralblatt für Didaktik der Mathematik-ZDM

Bybee, R. W. (2010a). The teaching of science: 21st century perspectives. Arlington, Virginia: NSTA Press.

Frejd, P. (2013). Modes of modelling assessment: A literature review. Educational Studies in Mathematics

Lingefard, T. (2006). Faces of mathematical modeling. ZDM–The International Journal on Mathematics Education

Maaß, K. (2006). What are modelling competencies? Zentralblatt für Didaktik der Mathematik-ZDM

Sriraman, B. (2005). Conceptualizing the notion of model eliciting. 4. Congress of the European Society or Research in Mathematics Education'de sunulan bildiri, Sant Feliu de Guíxols, İspanya

Wagner, T. (2008). Rigor redefined. Educational Leadership

Yu, S. Y. və Chang, C. K. (2011). What did Taiwan mathematics teachers think of modeleliciting activities and modelling teaching?. G. Kaiser, W. Blum, R. B. Ferri and G. Stillman (Haz.), Trends in teaching and learning of mathematical modelling. Netherlands: Springer

# İBTİDAİ SİNİFLƏRİN AZƏRBAYCAN DİLİ DƏRSLİKLƏRİNDƏ TƏRBİYƏVİ MƏSƏLƏLƏR

**ÜLVİYYƏ DADAŞZADƏ**
Bakı Slavyan Universiteti
İbtidai sinifdə tədrisin metodika və metodologiyası
*ulviyyedadaszade@gmail.com*
BAKI ŞƏHƏRİ

**XÜLASƏ**

Bu tədqiqat "Azərbaycan dili" dərsliklərində təqdim olunan tərbiyəvi məsələlərdən bəhs edir.Məqalədə ibtidai siniflərdə təhsilin məzmununda yer alan milli- mənəvi dəyərlərin şagirdlərə aşılanmasının səmərəli yolları işlənib hazırlanmışdır. İbtidai sinif şagirdlərinin" Azərbaycan Dili" dərslikləri mənəvi keyfiyyətlərin formalaşmasında əhəmiyyətli rola malikdir. "AzərbaycanDili" dərsliklərində tərbiyə məsələləri,şagirdlərin mənəvi,sosial,intellektual və fiziki inkişafını təmin edir.Bu dərsliklər vasitəsilə şagirdlərə mənəvi dəyərlər aşılanır.

Bu dəyərlər arasında hörmət,məsuliyyət,səbr,yardımsevərlik,ədalətlilik,qayğıkeşlik kimi mənəvi dəyərlər yer alır."AzərbaycanDili"dərsliklərindəverilmiş hekayələr,mətnlər,şeirlər,tapşırıqlar mənəvi dəyərlərimizi əks etdirir.Bu hekayələr vasitəsilə şagirdlər əxlaqi- mənəvi dəyərləri öyrənirlər.Bütün bunlar şagirdlərin mənəviyyatlarının formalaşmasına,onların digər insanlarla əlaqələrində məsuliyyətli və hörmətli olmalarına kömək edir.Bu məsələlər ibtidai sinif "Azərbaycan Dili" dərsliklərində tərbiyə məsələlərinin əhəmiyyətini izah edir.

İbtidai sinif "Azərbaycan Dili" dərsliklərinin məzmununda vətənpərvərlik, milli dil, milli musiqi və incəsənət, milli adət və ənənələr və ölkənin milli rəmzlərini əhatə edən mövzular öz əksini tapmışdır. Bundan əlavə məqalə də müəllimlərin dərs zamanı yerinə yetirməli olduğu əsas vəzifələrdən bəhs olunur.Müəllimin yerinə yetirməli olduğu birinci vəzifəsi vətənpərvərlik və azərbaycançılıq ideyalarına sadiq olan vətəndaş və şəxsiyyət yetişdirməkdir. Buna görə də müəllim şagirdlərə milli-mənəvi dəyərləri aşılamalıdır. Bundan əlavə, kiçik yaşlı şagirdlərin əxlaqi-mənəvi tərbiyəsi millətin dəyərlərinin yerinə yetirilməsi üçün bir körpü rolunu oynayır.Azərbaycan dili dərsliklərinin məzmununu diqqətlə təhlil etdikdə görürük ki, şagirdlər bu dərsliklər vasitəsilə ümumbəşəri əxlaqi dəyərləri və onlarda cəmlənmiş insani idealları öyrənə bilərlər." Azərbaycan Dili"dərslikləri həm də şagirdlərin diqqətinə əxlaqi məsələləri çatdırmaqla ,öz məzmunu ilə şagirdlərdə əxlaqi-mənəvi keyfiyyətləri formalaşdırmaqda müəllimlərə kömək edəcək.

**SUMMARY**

This study deals with the educational issues presented in the "Azerbaijani language" textbooks. In the article, effective ways of instilling the national and moral values included in the content of education in primary classes to students have been developed. "Azerbaijani Language" textbooks of elementary school students have an important role in the formation of moral qualities. In "Azerbaijani Language" textbooks, educational issues ensure the moral, social, intellectual and physical development of students. Moral values are instilled in students through these textbooks.

Among these values are moral values such as respect, responsibility, patience, helpfulness, fairness, care. The stories, texts, poems, assignments given in the "Azerbaijan Language" textbooks reflect our moral values. Through these stories, students learn moral and spiritual values. All these helps students to develop their spirituality, to be responsible and respectful in their relationships with other people. These issues explain the importance of educational issues in the elementary school "Azerbaijani Language" textbooks.

The contents of primary school "Azerbaijani Language" textbooks reflect the themes of patriotism, national language, national music and art, national customs and traditions, and national symbols of the country. In addition, the article also talks about the main tasks that teachers should perform during the lesson. The first task that the teacher should perform is to educate citizens and personalities who are loyal to the ideas of patriotism and Azerbaijaniism. Therefore, the teacher should instill national and moral values in the students. In addition, the moral and spiritual upbringing of young students serves as a bridge for the fulfillment of the nation's values. When we carefully

analyze the contents of Azerbaijani language textbooks, we see that through these textbooks, students can learn universal moral values and human ideals concentrated in them. "Azerbaijani Language" textbooks will also help teachers to bring moral issues to the attention of students and to form moral and spiritual qualities in students with their content.

**AÇAR SÖZLƏR:** tərbiyə,dərslik,əxlaqi dəyərlər,vətənpərvərlik,mənəvi keyfiyyətlər,inkişaf

**KEY WORDS:** education,textbook,moral values,patriotism,spiritual qualities,growth

**КЛЮЧЕВЫЕ СЛОВА:** образование, учебник, моральные ценности, патриотизм, духовные качества, разработка

**GIRIŞ**

Bütün dövrlərdə uşaq və gənclərin tərbiyəsi məsələsinə müxtəlif yanaşmalar olmuşdur.Bəziləri tərbiyə deyərkən gənclərin mühitə alışdırılması, digərləri isə bunu şəxsiyyətin istək və arzularının zorla dəyişdirilməsi hesab etmişlər.Lakin bizə elə gəlir ki,tərbiyə düzgün davranış qaydalarının,milli və mədəni dəyərlərin uşaqlara məqsədəuyğun şəkildə aşılanması deməkdir.Tərbiyə hər bir dövlətin ideologiyasına və cəmiyyət üzvlərinin tələbatına uyğun olmalıdır.

Azərbaycan Respublikasının Təhsil Qanununda deyildiyi kimi təhsilin əsas məqsədlərindən biri Azərbaycan dövləti qarşısında öz məsuliyyətini dərk edən,xalqının milli ənənələrinə və demokratiya prinsiplərinə,insan hüquqları və azadlıqlarına hörmət edən,vətənpərvərlik və azərbaycançılıq ideyalarına sadiq olan,müstəqil və yaradıcı düşünən vətəndaş və şəxsiyyət yetişdirməkdir.

Uşaqların tərbiyəsi erkən yaşlarından başlanır və valideynlər,nənə və babalar tərəfindən aparılır.Ailə üzvlərinin yaşından,savadından,dünyagörüşündən asılı olaraq uşaqların tərbiyəsi bir-birindən fərqlənir.Ona görə də məktəbə ilk dəfə qədəm qoyan uşaqların tərbiyəsindəki fərqli cəhətləri müəyyənləşdirmək,nöqsanları aradan qaldırmaq ibtidai sinif müəllimlərinin vəzifəsidir.Bu işin həyata keçirilməsində "Azərbaycan Dili"dərslərinin imkanları çox geniş,dərsliklərinin rolu isə əvəzsizdir.

Keçən əsrin 80-ci illərindən torpaqlarımızın 20%-nin işğal olunması,1 milyona yaxın soydaşımızınyerindən,yurdundanqovulması,şəhərlərimizin,kəndlərimizin xaraba qoyulması,uşaqların ,qadınların və qocaların vəhşicəsinə öldürülməsi,təbii ki,ibtidai sinif dərsliklərində müxtəlif şəkildə əks olunurdu.Müəllimlərimiz hər dərsdə"özümüzdən pay vermək olar,vətəndən yox","Torpaqdan pay olmaz","Aləm cənnətə dönsə,yaddan çıxmaz Qarabağ" kimi aforizmləri təkrar-təkrar deyir,uşaqları intiqam almağa səsləyirdilər.Mənə elə gəlir ki,44 günlük müharibə zamanı qələbəmizin bir səbəbi də gənclərə verdiyimiz o tərbiyənin təsiri idi.O ənənə indi də davam etdirilir.

Dərlikdə verilmiş Səməd Vurğunun "Azərbaycan" şeiri şagirdlərin vətənpərvərlik hisslərini qabardır,onlarda doğma yurda,ana vətənə məhəbbət hissini aşılayır.Şeirdə "Qarabağ şikəstəsi" nin adı çəkilir və dərslikdə şagirdlərə bu haqda məlumat verilir və onlarda müəyyən təsəvvürlər formalaşır. Onlar mənfur düşmənin torpaqlarımızı,milli adət-ənənələrimizi ,dəyərlərimizi mənimsəmələri ,düşmənin məkrli planları haqqında məlumata sahib olurlar və vətəni,torpaqlarımızı daim qorumalı,onu sevməli olduqlarını başa düşürlər. Rəşadətli ordumuzun işğal olunmuş torpaqlarımızı azad etməsi şagirdlərin qəhrəmanlıq,vətənə olan sevgi,məhəbbət hislərini alovlandırır.Dərslikdə vətən uğrunda canından keçən igid qəhrəmanlarımız haqqında məlumat verilir,onların şücaətləri göstərilir.Bütün bunlar şagirdlərdə qələbəyə inam,mərdlik,vətənpərvərlik hislərini aşılayır.

İbtidai sinif şagirdlərinin tərbiyəsində müəllimin bacarığı da çox əhəmiyyətlidir.Əgər müəllimin səsi,mimikası və jestləri oxuduğu əsərin məzmunu ilə həm ağəngdirsə,şagirdlərin də qəlbində düşmənə nifrət,vətənə məhəbbət hissi alovlanmış olur.

Müəllim şagirdlərə hər hansı bir mövzuda esse yazmağı,material toplamağı tapşırırsa,şagirdlər yeni biliklər əldə edir,onu dostları ilə bölüşürlər.

Bayram günlərində,tarixi hadisələrin ildönümündə sinifdə hər hansı bir səhnəciyin nümayişi uşaqlara çox təsir etmiş olur.Sinifdənkənar və məktəbdənxaric tədbirlərin keçirilməsi də bu sahədə önəmlidir.Şəhidlər xiyabanına ekskursiyanın təşkili,şəhid qəbirlərinin ziyarət edilməsi,onların məzarları üzərinə çiçək qoyulması şagirdlərə bu məzarda yatanlar qarşısında bizim daim borclu olduğumuzu,onların heç vaxt unudulmayacağını anlatmaq məqsədi daşıyır.

İbtidai sinif şagirdlərində əxlaqi dəyərlərin formalaşması və inkişaf etdirilməsi zəruri olan bir məsələdir.Şagirdlərə yüksək əxlaqi keyfiyyətlər-doğma dilə,vətənə,xalqa məhəbbət, mənəvi təmizlik, dəyərlərə,dosta,böyüklərə hörmət,ehtiram və dözümlülük öyrədilir.Onlar ailə,dostluq dürüstlük,ədalətlilik,qayğıkeşlik,rəhimdillik,ekoloji tərbiyə,xeyir və şər haqqında təsəvvür və

anlayışlara ibtidai siniflərdən yiyələnirlər.Azərbaycan dili dərsliklərində bu mövzularda yazılmış mətnlərin olması şagirdlərdə sadalanan anlayışlar haqqında biliklərini daha da genişləndirmələrinə,onların maariflənməsinə və yüksək mənəvi keyfiyyətlərlə tərbiyə edilməsinə kömək olur.

Birinci sinif dərsliyinin ilk fəslində şagirdlər ailə üzvləri ilə tanış olurlar. Onlar ailə haqqında bəsit biliklərə yiyələnirlər,eyni zamanda böyüklərə hörmət,sevgi bəsləmək hissi aşılanır. Dərslikdə verilən çalışmalar sayəsində şagirdlər ailə ağacı hazırlamağı öyrənirlər.Şagirdlər qədim türk elinin adətləri ilə də tanış olurlar.Dərslikdə Dədə Qorqudun ad qoyma mərasimi ilə bağlı məlumatın verilməsi oxucuları lap qədim zamanlara aparır,onlarda böyüklərə,milli dəyərlərə,adət-ənənələrimizə ehtiram hissini qabardır.Ulu öndər Heydər Əliyevin dediyi kimi "Çalışmalıyıq ki, gənclərimiz Azərbaycan xalqına xas olan mənəvi, milli ənənələr əsasında tərbiyə edilsin".

Kiçik yaşlı məktəblilərdə ekoloji tərbiyə haqqında ilkin anlayışlar formalaşdırmaq önəmlidir. Şagirdlərə təbiəti,heyvanları,bitkiləri sevməyi,onlara qayğı göstərməyi və onları qorumaq məhz ibtidai sinifdə öyrədilməlidir.İbtidai sinif dərsliklərində şagirdlərin ətraf mühiti dərk etməsinə kömək edən mətnlər mövcuddur.Burada təbiət hadisələri,təbii fəlakətlər,bitkilər və heyvanlar aləmi ilə bağlı məlumatlar şagirdlərə ötürülür.İbtidai sinif Azərbaycan dili dərsliklərinə nəzər salsaq görərik ki,hər sinifin bir bölməsi təbiətə və ya onunla bağlı olan hadisələrə həsr olunub.Dərslikdə verilmiş bu tip mətn və çalışmalar uşaqları ətraf mühitin real vəziyyətləri ilə, ekoloji problemləri ilə tanış etməyi, onlardan xəbərdar olmağa və həssas olmağa kömək etməyi nəzərdə tutur. Həmçinin dərslikdə şagirdlərə suyun həyatımızda əvəzolunmaz bir rola malik olması göstərilib.Susuz həyatın canlıların,təbiətin məhvinə səbəb olması gözəl bir şeir nümunəsində əks olunub.Daha sonra dərslikdə heyvanların müdafiəsinin vacibliyi göstərilir və 4 oktyabr heyvanların müdafiə günü olması ilə bağlı məlumat da qeyd edilib.

Müasir Azərbaycan dili dərsliklərində verilmiş bu mətnlərin məqsədi şagirdlərə təbii ehtiyatların əhəmiyyətini dərk etmək və aktual ekoloji problemlərin həlli yollarını inkişaf etdirməyi öyrətməkdir.

Məktəb yaşlı uşaqların sağlam inkişafı üçün dostluq anlayışı çox vacibdir. Dostluq uşaqların emosional və əxlaqi inkişafına müsbət təsir göstərir.Müasir Azərbaycan dili dərsliklərində dostluq mövzusuna aid mətnlər və çalışmalar həsr olunub. III sinif Azərbaycan dili dərsliyində dostluq mövzusunda olan "Cəmil+ Mahir" mətninə nəzər salaq.Bu mətndə şagirdlərə dostu qorumaq,ona dayaq olmaq,çətinə düşəndə dosta kömək etmək lazım olduğu vurğulanır.

Azərbaycan dili dəsrsliyində verilmiş "İki alma" adlı mətndə isə şagirdlərə mərhəmətli olmaq aşılanır.Hekayədə uşaqlara imkanı olmayanlara yardım etmək,paylaşmağı bacarmaq,ehtiyacı olan insanın dərdinə dərman olmaq,mərhəmətli olmaq əks olunub.Bu hekayə vasitəsilə şagirdlərdə dərin empatiya və mərhəmət hissi inkişaf edir, xeyirxahlıq və anlayış kimi mənəvi dəyərləri möhkəmləndirir.

Kiçik yaşlı məktəblilərə dürüstlük anlayışının aşılanması çox vacibdir. Dürüstlük uşaqlara öyrədilə bilən bir xüsusiyyətdir. Dürüstlüyün öyrədilməsi uşağın mənəvi və emosional gücünün inkişafının bir hissəsini təşkil edir. Dürüstlük keyfiyyəti uşağa güclü xarakter və möhkəm özünə hörmət inkişaf etdirməyə kömək edir.Dürüstlük nümunə ilə öyrədilə bilər. Müəllim dərsdə şagirdlərlə bu mövzuda söhbətlər aparmalıdı. Hekayələr bu söhbətləri aparmaq üçün əla vasitədir.Onlar göstərə bilərlər ki, dürüst olmağın müsbət nəticələri var və həqiqəti etiraf etmək daha yaxşı olar.Üçüncü siniflərin "Azərbaycan dili" dərsliyində "Dürüstlük" adlı mətn verilmişdir.Mətndə Elxan adlı şagirdin tənəffüsdə qaçdığını görən müəllimə ona tənəffüsdə qaçmaması üçün xəbərdarlıq edir.Daha sonra müəllimə Elxana bir məktub verir və məktubu anasına çatdırmasını söyləyir.Məktubda müəllimin Elxanla bağlı mənfi düşüncələrinin olduğunu düşünən Elxan məktubu anasına vermir və müəllimə məktubun anasına çatması ilə bağlı sual verdikdə o yalan danışır.Həftəsonu müəllimə şagirdlərlə birlikdə ekskursiyaya gedir,lakin Elxan bu ekskursiyaya nə qədər çox getmək istəsədə gedə bilmir.Kitablarını açan zaman o anasına vermədiyi məktubu açıb oxuyur.Məktubun arxasında icazə vərəqi var idi.Müəllimə Elxanında onlarla ekskursiyaya gəlməsi üçün xahiş edir.Elxan kədər və peşman halda donub qalır.Əgər o dürüst olsaydı və məktubu vaxtında anasına çatdırsaydı o da sinif yoldaşları ilə birlikdə gəzintiyə gedə biləcəkdi.Mətndə şagirdlərə dürüst olmağın vacibliyi vurğulanır və göstərilir ki,əgər biz dürüst olmasaq,sonda Elxan kimi peşman olarıq. Əgər uşaqların dürüst olmasını istəyiriksə, onlara dürüst olmağı əməllərimizlə göstərməliyik. Əməllərimizi sözlərimizə uyğunlaşdırmaq söylədiyimiz sözlərdən daha güclüdür.

Müasir II sinif Azərbaycan dili dərsliyində şagirdlər yaxşı və pis əməllər haqqında məlumat alırlar.Onlar artıq yaxşı və pisin nə olduğunu anlayırlar.Şagirdlər cəsarət,sədaqət,qənaət etmək kimi yaxşı əməllərlə tanış olurlar.Oxucular qənaət etməklə bağlı mətni oxuyan zaman qənaət etməyin vacibliyini anlayırlar.

İbtidai sinif şagirdlərinin tərbiyəsində mətnlərdəki müsbət obrazlar mühüm əhəmiyyət daşıyır.Məhz bu bədii obrazlar sayəsində uşaqlar hadisələri,onlara çatdırılan fikirləri daha yaxşı qavrayırlar.

Müşahidə və təcrübələr göstərir ki, məktəbdə bütün təlim və tərbiyə işlərinin müvəffəqiyyəti uşağın ana dili sahəsindəki uğurlu fəaliyyətindən çox asılıdır. Azərbaycan dili hər hansı bir məlumatı mənimsəmək üçün başlıca alətlərdən biridir. Uşaq hər şeyi öyrənməkdə və tərbiyə almaqda başlıca olaraq, sözdən istifadə etdiyi üçün dil bütün təlim və tərbiyə işlərinin mühüm vasitəsi kimi özünü göstərir (Cəfərova,2016).

**NƏTICƏ**

Azərbaycan dili dərsliklərində verilmiş mətnlər,şeirlər şagirdlərin nitq qabiliyyətinin inkişaf etdirilməsi,lüğət ehtiyyatının zənginləşdirilməsi ilə yanaşı onların əxlaqi,mənəvi keyfiyyətlərini,yüksək insani keyfiyyətlərin formalaşmasında böyük rol oynayır. “Azərbaycan dili” dərslikləri şagirdləri məsuliyyətli, empatik və etik şəxsiyyətlər kimi formalaşdırmağa kömək edir. Əxlaqi dəyərlərin əhəmiyyətini vurğulayan hekayələr, nümunələr daxil etməklə, şagirdləri akademik uğura və dürüstlük və şəfqətlə idarə olunan həyata hazırlayır. Dünyamız dəyişməyə davam etdikcə, “Azərbaycan dili” dərslikləri vasitəsilə əxlaqi dəyərlərin öyrədilməsi vacib olaraq qalır. Bu dəyərlər cəmiyyətə müsbət təsir göstərə bilən və dünyanı daha yaxşı bir yerə çevirə bilən nəsil yetişdirməyə kömək edir. “Azərbaycan dili” dərslikləri millətimizin gəncliyinin mənəvi təməlinin qurulmasında dəyərli müttəfiqlərdir. Bu kitablar həyatımız boyu ağıllı seçimlər etməyi öyrənmək üçün bizə kömək edir.

**ƏDƏBIYYAT SIYAHISI**

Cəfərova, N.B.İbtidai siniflərdə Azərbaycan Dilinin tədrisi metodikası,Bakı-2016, 81-84.
Ümumi təhsil müəssisələrinin 1-ci sinifləri üçün Azərbaycan dili fənni üzrə dərslik.
Ümumi təhsil müəssisələrinin 2-ci sinifləri üçün Azərbaycan dili fənni üzrə dərslik.
Ümumi təhsil müəssisələrinin 3-cü sinifləri üçün Azərbaycan dili fənni üzrə dərslik.
Ümumi təhsil müəssisələrinin 4-cü sinifləri üçün Azərbaycan dili fənni üzrə dərslik.

# PLÜRALİST YANAŞMA: İNTERAKTİVLİYİN VİDEOKONFRANS VASİTƏSİLƏ TƏŞKİLİ

**Dissertant, Salmanova Jalə**
Azərbaycan Dillər Universiteti
Təlim və Tərbiyyənin Nəzəriyyəsi Metodikası
orcid.org/0000-0002-4846-1514
salmanovajala@gmail.com
BAKI, AZƏRBAYCAN

**Xülasə**

Məqalədə xarici dilin tədrisində plüralist yanaşmada interaktivliyin videokonfrans vasitəsilə təşkilindən bəhs edilir. Xarici dilin öyrədilməsinin əsas məqsədi dilöyrənənləri müstəqil şəxsiyyət və səriştəli mütəxəssis kimi yetişdirməkdir. Bu baxımdan çoxdilli və multikultural mühitdə tələbələrin ünsiyyət bacarıqlarının formalaşdırılması prioritet hesab edilir. Belə ki, xarici dil və mədəniyyətin interaktiv situasiyalarda öyrədilməsi ünsiyyət bacarıqlarının formalaşdırılmasını gücləndirir.İnteraktiv prosesin sosial-mədəni konteksdə videokonfrans vasitəsilə tətbiqi mədəniyyətlərarası ünsiyyətin inkişafına təkan verir və qarşılıqlı əlaqəni güçləndirir. Tədqiqatın əsas məqsədi ali məktəblərdə mədəniyyətlərarası dialoqlar vasitəsilə interaktivliyi təmin etməkdir. Beləliklə, videokonfrans formatında təşkil edilən dərslər tələbələrin digər insanları anlamaq, əlaqə qurmaq və öz millətinin nümayəndələri və "yad" sosial-mədəni mühit ilə ünsiyyət çətinliklərini aradan qaldırmağa kömək edir.

**Açar sözlər:** interaktivlik, mədəniyyətlərarası ünsiyyət, videokonfrans

**A PLURALİSTİC APPROACHES: ORGANIZING INTERACTIVITY THROUGH VIDEO CONFERENCING**

**Summary**

The article deals with the organization of interactivity through videoconferencing in a pluralistic approach to foreign language teaching. The main goal of teaching a foreign language is to train learners as independent personalities and competent specialists. In this regard, the formation of students' communication skills in a multilingual and multicultural environment is considered a priority. Thus, teaching a foreign language and culture in interactive situations strengthens the formation of communication skills. The application of the interactive process through video conferencing in the socio-cultural context promotes the development of intercultural communication and strengthens interaction. The main goal of the research is to provide interactivity through intercultural dialogues in higher schools. Thus, lessons organized in the format of a video conferencing help students understand other people, establish relationships and overcome the difficulties of communicating with representatives of their own nation and "foreign" socio-cultural environment.

**Keywords:** interactivity, intercultural communication, video conferencing

## GİRİŞ

Ümumi təhsil pilləsinin dövlət standartlarının tələblərinin proqramlarına uyğun olaraq tələbələrə xarici dilin öyrədilməsinin əsas məqsədi onların cəmiyyətdə müstəqil şəxsiyyət, güclü, peşəkar mütəxəssis kimi formalaşmaları və inkişafları üçün təkan verməkdir. Bu baxımdan tələbələrin kommunikativ bacarıqlarının çoxdilli, çoxmədəniyyətli bir mühitdə təkmilləşdirilməsi üstun tutulur ki, bu da onların öz doğma və xarici dillərində istər peşəkar, istərsə də şəxsi məqsədlərlə səmərəli şəkildə ünsiyyət qurmalarına zəmin yaradır. Belə ki, xarici dilin tədrisi yalnız o dildə danışıb, ünsiyyət qurmaq bacarığına yiyələnmək deyil, həmçinin, öz ana dilinin və tədris olunan dilin ölkəsinin mədəni və milli dəyərlərini, adət-ənənələrini və xüsusiyyətlərini, mədəni fərqliliklərini dərk etmək, mədəniyyətlərarası tolerantlığa hazır olmaq, digər mədəniyyətlərin nümayəndələri ilə dialoqa girmək bacarığı təkmilləşdirəkdir (Candalier, 2003).

Xarici dil və mədəniyyətin öyrənilməsi prosesində mədəniyyətlərarası səriştənin və ünsiyyətin əsaslarının öyrədilməsi bir çox tədqiqatçılar tərəfindən araşdırılmışdır . Zarata görə, dildə sosial-mədəni təcrübənin toplanması ünsiyyət üfüqlərini genişləndirir, mədəniyyətlərarası ünsiyyətin

inkişafını stimullaşdırır. Ünsiyyət prosesi dilöyrənəni qarşılıqlı əlaqəyə təşviq edir və eyni zamanda müxtəlif sosial situasiyalarda yaranan çətinlikləri dərk etməyə və aradan qaldırmağa kömək edir (Zarate, 2003).

**TƏDQİQATIN METODU**

Qeyd etmək istərdik ki, tədqiqatımızın əsas məqsədi ali təhsil müəssisələrində interaktivliyi mədəniyyətlərarası dialoqlar vasitəsilə təmin etməkdir. Məqsəd tələbələrin müxtəlif aspektlərdə ünsiyyət problemlərinin videokonfrans vasitəsilə aşkarlanması və bu problemlərin həlli istiqamətində müxtəlif interaktiv təlim üsullarından istifadə edilməsidir.

Dövrün zərurətinə çevrilən informasiya texnologiyalarının geniş tətbiqi ilə hər sahədə olduğu kimi təhsil sahəsində də irəliləyişlərlə müşahidə olunur. Tələbə və şagirdyönümlü təhsil metodu olan distant təhsilin məqsədi tələbənin öz-özünə öyrənməsini təmin edəcək mühiti yaratmaqdır (Hennesly,2019). Gündən-günə inkişaf etməyə davam edən və həyatın bütün sahələrində özünə yer tapan yeni texnologiyalar sayəsində onlayn görüşlər, konfranslar və bu kimi hər cür fəaliyyətlər internet dünyasında özünə yer tapmışdır. Videokonfrans metodu nədir? Onun üstünlükləri nədən ibarətdir və bu konfransın təşkili zamanı əsasən nələrə diqqət yetirilməliyik?

Videokonfrans və ya video-telekonfrans iki və ya daha çox yerlə eyni vaxtda video və audio danışıq aparmağa imkan verən telekommunikasiya texnologiyası deməkdir. Bu telekonfrans sistemləri sayəsində birdən çox şəxs asanlıqla audio və video zənglər edərək, öz bilik və bacarıqlarını qarşılıqlı şəkildə bir-birlərinə interaktiv yolla ötürə bilirlər (J. Bawane , J. Spector, 2009). Videokonfransın təşkili zamanı iştirakçıların kilometrlərlə bir-birindən nə qədər uzaq olmasının əhəmiyyəti yoxdur. Ölkənin və dünyanın istənilən yerindən interneti və elektron cihazı olan hər kəs planlaşdırılmış video telekonfransda iştirak edə bilər. Beləliklə, görüş yerinə gələndə və görüş bitdikdən sonra geri qayıtdıqda xeyli vaxta qənaət edilir. Vaxta qənaət kimi, xərclərə qənaət də videokonfrans sisteminin ən böyük üstünlüklərindən birinə çevrilib. Planlı şəkildə görüşə qatılacaq tələbələrin nəqliyyat, yol və yemək xərclərini sıfıra endirmək mümkündür. Dünyanın ən güclü, keyfiyyətli təhsil verən üniversitetlərinin göstərdikləri nümunəvi dərslərə baxsaq görərik ki, bu universitetlərin təşkil etdiyi dərslərin əksəriyyəti məhz distant təhsilə üstünlük verir.

Videokonfrans və ya video-telekonfrans sistemlərinin ən böyük üstünlüklərindən biri onun istifadəsinin asanlığıdır. Video-telekonfrans zamanı digər iştirakçı tələbə və müəllimlərlə paylaşılacaq sənədlər, fayllar, videolar və ya tanıtım təqdimatları kimi bütün materiallar video konfrans sisteminə yüklənə və ekran paylaşımı ilə iştirakçılarla asanlıqla paylaşıla bilər. Lakin, onu da qeyd etməliyik ki, video konfrans sistemləri ilə işləməyin ən böyük çatışmazlığı internet şəbəkəsində yarana biləcək problemlərdir. Bundan başqa, videokonfrans zamanı iştirakçıların diqqəti həmişə müəllimin imicində və səsinizdə olacaq. Jest və mimikalara diqqət yetirmək, uyğun anlarda gülümsəmək, bədən dilinin istifadəsinə və nəzarətinə önəm vermək kimi təfərrüatlar görüş zamanı nəzarəti və funksiyanallığı artırmağa kömək edir (Smith, 2014).

Canlı videokonfrans metodu ilə təşkil edilən dərslərin üstünlükləri aşağıdakılardır:

- zaman və coğrafi sərhədlərdən asılı olmayaraq, xarici dil və mədəniyyətlərarası ünsiyyətin öyrədilməsi imkanı;
- real mühitə mümkün qədər yaxın ünsiyyət mühitinin yaradılması;
- mədəniyyətlərarası əlaqə və dünyagörüşünün inkişafı;
- fərqli dillərə, mədəniyyətlərə və dəyərlərə mənsub tələbə və müəllimlərlə asan yolla ünsiyyət qurmaq.

Təlimçi və ya müəllimlər tərəfindən hazırlanmış dərs mövzuları müxtəlif sinxron və ya asinxron media (video, animasiya podcast, pdf və s.) vasitəsilə təqdim olunur. Belə ki, təlimçi və ya müəllimlər özləri ilə tələbələr arasında fiziki məsafəni minimuma endirməyə yönəlmiş müxtəlif fəaliyyətləri layihələndirir, qiymətləndirir və rəy verirlər. Tələbələr isə öz növbələrində bu fəaliyyətlərdə fərdi və ya birgə şəkildə iştirak etmək, araşdırmaq, cavablandırmaq və ya hesabat vermək kimi fəaliyyətlərini həyata keçirirlər.

Bəs distant təhsildə sinxron və asinxron öyrənmə nədir?

Distant təhsil, yeni təlim texnologiyalarının təklif etdiyi fürsətlər və imkanlar çərçivəsində planlaşdırılan təlimin ehtiyaclarına uyğun olaraq, ***sinxron*** (eyni zamanda) və ya ***asinxron*** (qeyri-sinxron) həyata keçirilir (S. Karaman, E. Kurşun, 2020).

*Sinxron* öyrənmə eyni vaxtda öyrənmə prosesinin həyata keçirilməsidir. *Sinxron* öyrənmə zamanı, tələbələr virtual mühitdə eyni anda müxtəlif yerlərdə bir araya gələ bilir, bir-birləri ilə audio və video vasitəsilə qarşılıqlı əlaqə qura və müxtəlif təcrübələr paylaşa bilirlər. Müxtəlif proqram vasitələri ilə internet üzərindən audio və video rabitə, ani mesajlaşma və videokonfrans tətbiqləri hazırlanır. Bundan başqa, kurs materiallarını öyrənənlərə təqdim etməklə yanaşı, həm də canlı, kontekstual və interaktiv öyrənmə mühiti təmin edilir (J. Ross, C. Bruce, 2007). *Asinxron* öyrənmə müxtəlif vaxtlarda və yerlərdə həyata keçirilən öyrənmə prosesidir. Asinxron distant təhsil məzmunun müxtəlif proqram alətləri vasitəsilə təqdim edildiyi və saxlandığı onlayn təhsil mühitidir və öyrənənlər zaman və məkandan asılı olmayaraq bu virtual məkana istənilən yerdən daxil ola bilərlər. Asinxron distant təhsildə şagird/tələbə-məzmun qarşılıqlı əlaqəsi ön plana çıxarkən, şagird/tələbə-müəllim qarşılıqlı əlaqəsi gecikmə ilə təmin edilir. E-poçtlar, müzakirə lövhələri, forum fəaliyyətləri asinxron distant təhsil mühitlərində geniş istifadə olunan təlim fəaliyyətləridir (Romiszowski, 2004).

Distant təhsil proqramlarında təklif olunan sinxron və asinxron təhsil modelləri istifadə olunan mühitlərə və planlaşdırılan təhsil tələblərinə uyğun olaraq təşkil edilir. Bu mühitlərdə həyata keçirilən təlim-tədris proseslərinin əsasını qarşılıqlı əlaqə təşkil edir (F. Martin, M. Parker, 2009).

Araşdırmalar göstərir ki, onlayn tədris platforması ilə videokonfrans dərslərinin təşkilinin üstünlükləri zamandan və coğrafi sərhədlərdən asılı olmayaraq, xarici dilin və mədəniyyətlərarası ünsiyyətin öyrədilməsi imkanıdır və real mühitə mümkün qədər yaxın ünsiyyət mühitinin yaradılmasıdır. Ünsiyyət bütün iştirakçıların maraq doğurduğu məsələlər üzərində öyrənilən dil və mədəniyyətin qarşılıqlı əlaqələndirilməsi ilə həyata keçirilir (White,2020). Şübhəsiz ki, məsafədən ünsiyyətin bu üsulu həm texniki xarakterli (İKT vasitələrinə ehtiyac), həm də mənəvi-psixoloji amillərlə üzləşə bilər, məsələn,

- tələbələr motivasiya və əvvəlcədən hazırlığın olmaması kimi müəyyən çətinliklərlə qarşılaşa bilər;
- tələbənin qərarsızlığının psixoloji narahatlıq gətirib çıxara bilər;
- tələbənin psixoloji narahatlığının olub-olmamasını və ya özünü sərbəst hiss etməsini əvvəlcədən proqnozlaşdırmaq mümkün deyil;
- tələbənin kommunikativ sərištəsinin aşağı səviyyədə olması ilə əlaqədar yaranan ünsiyyətə girmə probleminin nəzərə çarpması.

Yuxarıda qeyd edilən problemləri aradan qaldırmaq və bu metodun səmərəliliyinə nail olmaq üçün müəllim öz məqsəd və vəzifələrini müəyyən etməlidir. Dərsin əvvəlcədən planlaşdırılması aparılmalı, planlaşdırılan fəaliyyətlərin səmərəli şəkildə təşkilinə diqqət yetirilməli və görülən fəaliyyətlərin nəticələrini növbəti dərslərdə praktiki tətbiqi məqsədi ilə təhlil edilməlidir.

Bundan əlavə, videokonfrans formatda həyata keçirilən dərs zamanı mədəniyyətlərarası ünsiyyətin formalaşdırılması təkcə yaxşı bilik deyil, həm də hazırlıq tələb edən mürəkkəb və çoxkomponentli məsələdir, yəni dərs prosesində onun olmaması kommunikativ disharmoniyaya, psixoloji və ünsiyyət çətinliklərinə, konstruktiv və effektiv dialoq şansının azalmasına səbəb ola bilər (Château, 2000).

Təhsil materialının seçiminə gəldikdə isə, dərsliklər və ya seçilən materiallar "Ümumi təhsil pilləsinin dövlət standartı və proqramlarının (kurikulumları)" tələblərinə, tələbələrin yaşlarına və xarici dil səviyyələrinə, fənlərarası əlaqələrin həyata keçirilməsi prinsiplərinə, təhsilin planlaşdırılmış məqsədlərinə müvafiq olmalıdır.

**NƏTİCƏ**

Ünsiyyət bacarıqlarının inkişafı. İnteraktiv təlim metodları şagirdlərin ünsiyyət bacarıqlarını inkişaf etdirməyə yönəlmişdir. Oyunlar, rol oyunları və qrup müzakirələri zamanı şagirdlər bir-biri ilə azərbaycan dilində ünsiyyət qurmağa məcbur olurlar ki, bu da onların şifahi ünsiyyətini, eləcə də başqalarının fikir və nöqteyi-nəzərini başa düşməsini və dözümlülüyünü artırır. Bu cür bacarıqlar təkcə təhsil prosesində deyil, həm də gündəlik həyatda, şagirdlərin doğma danışanlarla ünsiyyətdə olduğu zaman son dərəcə vacibdir.

Müsbət təhsil mühitinin yaradılması. İnteraktiv təlim metodlarından istifadə sinifdə müsbət təhsil mühitinin formalaşmasına kömək edir. Şagirdlər öz fikirlərinin və ideyalarının qiymətləndirildiyi fəal və dəstəkləyici mühitdə öyrəndikləri zaman özlərini daha rahat və inamlı hiss edirlər. Bu, daha effektiv öyrənməni təşviq edir və şagirdlərə daha yaxşı nəticələr əldə etməyə imkan verir.

İnnovativ texnologiyalar. İnformasiya texnologiyalarının inkişafı və rəqəmsal resursların mövcudluğu ilə interaktiv tədris metodlarından istifadə üçün yeni imkanlar yaranır. Virtual sinif otaqları, onlayn platformalar və mobil proqramlar şagirdlərə Azərbaycan dilində ədəbi tələffüz bacarıqlarını təkmilləşdirməyə kömək edən müxtəlif tədris materiallarına və interaktiv məşqlərə çıxış imkanı verir. Bu cür texnologiyalar tədris prosesini daha çevik və rahat edir, şagirdlərə istənilən vaxt və hər yerdə dil öyrənməyə imkan verir.

Kollektiv təcrübə yaratmaq. İnteraktiv tədris metodları birgə sinif təcrübəsini təşviq edir. Şagirdlər birlikdə problemləri həll edir, oyunlar oynayır, mətnləri müzakirə edir və layihələr üzərində

işləyirlər. Bu, şagirdlər arasında dostluq və əməkdaşlıq mühitini təşviq edir ki, bu da onların sosial və emosional inkişafının vacib aspektidir.

Daimi özünü təkmilləşdirmə. İnteraktiv tədris metodları həm müəllimlərin, həm də şagirdlərin davamlı özünü təkmilləşdirməsinə kömək edir. Müəllimlər daim öz dərslərində istifadə etmək üçün yeni və maraqlı texnika və texnologiyalar axtarırlar və şagirdlər dillə fəal şəkildə qarşılıqlı əlaqədə olurlar ki, bu da onun daha yaxşı mənimsənilməsinə kömək edir. Davamlı özünü təkmilləşdirmə həm müəllimlərə, həm də şagirdlərə təhsil və inkişafda yeni zirvələrə çatmağa kömək edir (Halil, 2020).

Azərbaycan dili dərslərində ədəbi tələffüz bacarıqlarının inkişaf etdirilməsi üçün aşağıdakı metodlar istifadə edilə bilər:

Ucadan oxu üsulu (oxu-təkrar): Müəllim Azərbaycan dilində bir cümləni ucadan oxuyur və sonra şagirdlərdən onu təkrarlamağı xahiş edir. Şagirdlər müəllimi izləyərkən səslərin düzgün tələffüzünə və intonasiyaya diqqət yetirməlidirlər.

Rollu oyunlar ("Mən kiməm" oyunu): Şagirdlər xarakter rolları olan kartları alırlar (məsələn, şagird, müəllim, satıcı, turist və s.). Onlar Azərbaycan dilində düzgün tələffüz və intonasiyadan istifadə edərək özlərini təqdim etməli və bir-birlərinə suallar verməlidirlər.

Assosiasiya oyunu (zəncirdəki sözlər): Müəllim sözü azərbaycanca adlandırır, sonra şagird əvvəlki sözün sonuncu hərfi ilə başlayan növbəti sözü adlandırmalıdır. Bu oyun şagirdlərə tez düşünməyə və düzgün səs birləşmələri yaratmağa kömək edir (Smith, 2020).

Diksiya məşqləri (tələffüz təlimi): Müəllim şagirdləri Azərbaycan dilində dil fırıldaqları da daxil olmaqla bir sıra diksiya tapşırıqlarından keçir. Şagirdlər ifadələri dəfələrlə təkrarlayır, onları aydın və yüksək səslə tələffüz etməyə çalışırlar.

Layihələr üzərində qrup işi (dialoqların yaradılması): Şagirdlər qruplar şəklində Azərbaycan dilində müxtəlif mövzularda dialoqlar yaradırlar (məsələn, restoranda, mağazada, qatar stansiyasında və s.). Sonra tələffüz və intonasiyaya diqqət yetirərək dialoqlarını sinif qarşısında təqdim edirlər.

Audio və video materialların istifadəsi: Müəllim şagirdlərə müxtəlif nitq nümunələri ilə Azərbaycan dilində qısa audio və ya video yazılar göstərir. Şagirdlər yazıları dinləyir və ya izləyir, sonra tələffüz və intonasiyaya uyğun gəlməyə çalışaraq onlardan sonra təkrar etməyə çalışırlar.

Fonetik məşqlərdən istifadə: Müəllim şagirdlərdən fonetik tapşırıqları yerinə yetirməyi, məsələn, Azərbaycan dilində müəyyən səs və ya səs birləşməsi olan sözlərin silsiləsi ilə tələffüz etməyi tapşırır. Bu şagirdlərə səslərin düzgün tələffüzünü inkişaf etdirməyə və diksiyanı təkmilləşdirməyə kömək edir.

Monoloji və dialoq vəziyyətləri: Müəllim şagirdləri azərbaycan dilində monoloq və ya dialoq situasiyaları yaratmağa, məsələn, hobbilərini təsvir etməyə, ailəsi haqqında danışmağa və ya müəyyən mövzuda ekspromt dialoq aparmağa dəvət edir. Bu, onlara tələffüz etməyə və danışma bacarıqlarını inkişaf etdirməyə kömək edir.

Multimedia resurslarından istifadə: Müəllim şagirdləri azərbaycan dilində ana dilində danışan və ya peşəkar aktyorlarla qısa videolara baxmağa dəvət edir, sonra onlarla məzmunu müzakirə edir, sözlərin və ifadələrin düzgün tələffüzünə aydınlıq gətirir.

Oyun proqramlarından istifadə: Müəllim şagirdləri Azərbaycan dilində tələffüz məşqləri, sözlərin tanınması və hətta krossvordlar və ya tapmacalar təklif edən oyun proqramlarından və ya onlayn oyunlardan istifadə etməyə təşviq edir.

Ritmik məşqlərdən istifadə: Müəllim şagirdlərdən ritmik tapşırıqlar yerinə yetirməyi, məsələn, müəyyən ritm və intonasiya ilə Azərbaycan dilində ifadələr və ya şeirləri təkrarlamağı xahiş edir. Bu, sözlərin diksiyasını və tələffüzünü yaxşılaşdırmağa kömək edir.

Audit tapşırıqları ilə səs yazılarından istifadə: Müəllim şagirdlərdən Azərbaycan dilində audio yazıları dinləməyi və sonra tapşırıqları yerinə yetirməyi, məsələn, dinlənilən material əsasında açar sözləri müəyyən etməyi, ifadələri təkrar etməyi və ya suallara cavab verməyi xahiş edir.

Fonetik kartlar: Müəllim adları Azərbaycan dilinin müxtəlif səsləri ilə başlayan əşyaların və ya heyvanların təsvirləri olan fonetik kartlar toplusu yaradır. Şagirdlər kartı seçməli və kartdakı şəklə uyğun gələn sözü düzgün tələffüz etməlidirlər.

Audio təqdimatların yaradılması: Şagirdlər seçdikləri mövzu üzrə Azərbaycan dilində audio təqdimatlar hazırlayır və mikrofon və ya mobil cihazdan istifadə edərək onları lentə alırlar. Sonra onlar sinifdə yazıları dinləyir və təəssüratlarını bölüşür, həmçinin müəllim və sinif yoldaşlarından rəy alırlar.

İnteraktiv tələffüz məşqləri: Müəllim kompüterdə və ya interaktiv lövhədə interaktiv tapşırıqlardan istifadə edir, burada şagirdlər şəkillərin üzərinə klikləyib Azərbaycan dilində uyğun sözlərin düzgün tələffüzünü dinləyə bilərlər.

Virtual reallıq resurslarından istifadə: Müəllim şagirdlərin mağazada, küçədə və ya qatar vağzalında olduğu kimi real vəziyyətlərdə Azərbaycan dili ilə ünsiyyət qura biləcəyi virtual mühit yaradır. Bu, onlara immersiv mühitdə tələffüzü məşq etməyə imkan verir (Martinez & López, 2020).

Yarışların və müsabiqələrin təşkili: Müəllim şagirdlər arasında Azərbaycan dilində ən yaxşı tələffüz və ya nitq sürəti üzrə müsabiqələr keçirir. Bu, onların fəal iştirakını təşviq edir və onları tələffüz bacarıqlarını təkmilləşdirməyə həvəsləndirir.

Müasir multimedia resurslarından istifadə: Müəllim şagirdləri Azərbaycan dilini öyrənmək üçün interaktiv tələffüz məşqləri, oyunlar və testlər təklif edən mobil proqramlardan və ya onlayn resurslardan istifadə etməyə dəvət edir.

Bu üsullardan Azərbaycan dili dərslərində ədəbi tələffüz bacarıqlarını inkişaf etdirmək üçün səmərəli istifadə etmək olar. Şagirdlərin hər bir qrupunun xüsusiyyətlərini nəzərə alaraq və tapşırıqların tədricən çətinləşdirilməsi prinsipinə riayət etməklə metodların seçilməsi vacibdir.

**NƏTICƏ**

Yekun olaraq qeyd etmək olar ki, Azərbaycan dili dərslərində ədəbi tələffüz bacarıqlarının inkişaf etdirilməsində interaktiv metodlardan istifadə səmərəli olmaqla yanaşı, həm də əyləncəli öyrənmə üsuludur. Bu üsullar təkcə tələffüz bacarıqlarını təkmilləşdirməyə kömək etmir, həm də şagirdlərin dil inkişafının mühüm aspekti olan ünsiyyət bacarıqlarını inkişaf etdirir.

İnteraktiv metodlar öyrənənlərə sözləri, ifadələri və cümlələri dinləmək və təkrarlamaq imkanı verir. Bu, öyrənənlərə düzgün tələffüzü dinləmək və özləri bunu məşq etməklə öz tələffüzlərini inkişaf etdirməyə kömək edir. Şagirdlər öz səslərini yaza və tələffüzləri ilə bağlı dərhal rəy alaraq onu orijinalla müqayisə edə bilərlər. Bu, öyrənənlərə təkmilləşdirməyə ehtiyacı olan sahələri müəyyənləşdirməyə və zamanla onların tərəqqisini izləməyə kömək edir. "Qulaq as və təkrar et" və ya "tələffüz binqosu" kimi interaktiv oyunlar tələffüz təcrübəsini əyləncəli və cəlbedici edə bilər. Bu oyunlar öyrənənlərə aşağı qiymətli mühitdə tələffüz bacarıqlarını inkişaf etdirməyə kömək edə bilər.

İnteraktiv üsullar öyrənənlər arasında əməkdaşlığı asanlaşdıraraq, onlara cütlər və ya kiçik qruplar şəklində tələffüzü məşq etməyə imkan verə bilər. Bu, öyrənənlərə həmyaşıdlarından rəy almağa və ünsiyyət bacarıqlarını inkişaf etdirməyə kömək edir.

Texnologiyaya əsaslanan interaktiv üsullar təkmilləşdirməyə ehtiyacı olan sahələri vurğulayaraq, öyrənənlərin tələffüzünə dair fərdi rəy təmin edə bilər. Bu hədəflənmiş rəy öyrənənlərə səylərini cəmləşdirməyə və tələffüz dəqiqliyini təkmilləşdirməyə kömək edir.

İnteraktiv metodlar xüsusi səslərə, intonasiyaya və ritmə diqqət yetirərək sistematik tələffüz təcrübəsi vasitəsilə öyrənənlərə istiqamət verə bilər. Bu strukturlaşdırılmış təcrübə öyrənənlərə tələffüzdə güclü zəmin yaratmağa və əvvəldən yaxşı vərdişlər inkişaf etdirməyə kömək edir.

İnteraktiv metodlar şagirdlərin bacarıq səviyyələrinə uyğunlaşa bilər, müvafiq səviyyələrdə çətinlik və dəstək təmin edir. Öyrənənlər təkmilləşdikcə, metodların çətinliyi tədricən arta bilər ki, bu da öyrənənləri tələffüz bacarıqlarını təkmilləşdirməyə davam etməyə təşviq edir.

İnteraktiv metodlar internet bağlantısı olan hər yerdə əlçatan ola bilər ki, bu da tələffüz təcrübəsini daha rahat və çevik edir. Şagirdlər istənilən vaxt və hər yerdə öz sürətləri ilə tələffüz edə bilərlər ki, bu da məşğul cədvəlləri olanlar üçün xüsusilə faydalı ola bilər.

**ƏDƏBIYYAT SIYAHISI**

1. İsmayılov, R. (2010). Azərbaycan dilinin tədrisi: ənənə və müasirlik. Azərbaycan müəllimi. 1 oktyabr. s.4.
2. Nəzərov, A. (2012). Müasir təlim texnologiyaları. Dərs vəsaiti. ADPU-nəşriyyatı. Bakı. 103 səh.
2. Halil, İ.Y. (2020). Öğretim teknolojileri ve materyal geliştirme. Nobel Akademik Yayıncılık, 30. Basım, Ankara, 240 s.
3. Smith, J. (2020). Enhancing Language Learning Through Interactive Methods. Journal of Language Education, 10(2), 45-62.
4. Martinez, G., & López, J. (2020). Innovative Technologies in Language Education: Virtual Classrooms and Mobile Applications. Educational Technology Research, 17(1), 45-58.

# İMLA YAZILARININ NÖVLƏRİ VƏ ƏHƏMİYYƏTİ

**Fİl.ü.f.d.sevİnc qəmbərova**
Xəzər Universiteti
Dillər və ədəbiyyatlar departamenti
*sevinc.qemberova@mail.ru*
BAKI, AZƏRBAYCAN

**AYSUN MƏMMƏDXANOVA**
Xəzər Universiteti
İbtidai sinif müəllimliyi
*mmmdxanovaaysun@gmail.com*
BAKI, AZƏRBAYCAN

XÜLASƏ

Orta məktəblərdə I-XI siniflərdə Azərbaycan dili fənni üzrə təqdim olunan məzmun xətləri (oxuma, yazma, dinləmə, dil qaydaları) üzrə tədris olunan bütün mövzular şagirdlərin şifahi və yazılı nitqinin inkişaf etdirilməsinə yönəlmişdir. Bu proses ibtidai siniflərdə başlanılır, orta və yuxarı siniflərdə davam etdirilir. Yazılı nitqin inkişaf etdirilməsi üçün istifadə olunan yazı növləri (imlalar, inşalar və ifadələr) çox effektivdir. Bu yazı növlərinin müxtəlif formalarına müraciət edilməsi şagirdlərin söz ehtiyatının çoxaldılmasına, təfəkkürünün, təxəyyülünün inkişafına, fikrini müstəqil şəkildə orfoqrafik, üslubi və s.xətalara yol vermədən yazılı və şifahi şəkildə ifadə eləməsinə gətirib çıxarır.

Məqalədə imla yazılarının əhəmiyyəti, ayrı-ayrı növləri və şagirdlərin təfəkkürünün inkişafında rolu barədə bəhs olunmuşdur. İmla yazılarına hazırıq lap aşağı siniflərdən başlanılmalıdır. İmlanın bütün növlərindən istifadə edə bilmək müəllimin peşəkarlıq səviyyəsindən asılıdır. Çünki hər biri şagirdin hərtərəfli inkişafı üçün fayda verə bilər. Əgər lüğət üzrə imla növü şagirdin söz ehtiyatını artırır və sözlərin düzgün yazılış qaydalarını öyrədirsə, yaradıcı, sərbəst imlalar təxəyyülü inkişaf etdirir, yaddaş üzrə və əzbərdən yazılar isə yaddaşın gücləndirilməsində müstəsna əhəmiyyətə malikdir. Tədqiqat işinin hazırlanarkən təsviri, müşahidə və müqayisə metodlarından istifadə edilmişdir.

**Açar sözlər: imla növləri, şagird, yazılı nitq**

## GİRİŞ

Yazı dünya mədəniyyətinin çox mühüm tərkib hissəsidir. Elm və texnikanın, mədəniyyətin və s. inkişafında yazı misilsiz xidmətlərə malikdir. O, dünyada olan bütün nəsillər və eləcə də millətlər arasında körpü rolunu oynamış, onların qarşılıqlı yaxınlaşmasına, mədəniyyətinin inkişafına güclü təkan vermişdir. Xalqın savadlı olması, elm və mədəniyyəti yazı ilə bağlıdır. Yazısız və yazının ümumiləşmədiyi bir xalqda fikirin inkişafı son dərəcə zəif olur. Onun tarixi, soy kökü, inkişafı haqqında düşünmək artıqdır. yazı insanların dünyaya və cəmiyyətə olan baxışlarını formalaşdırır, kainatı dərk etmələrinə kömək göstərir, maddi və mənəvi dəyərlərin, mədəni irsinin qorunub saxlanılmasını, mühafizə olunmasını təmin edir (1, səh.32).

Yazı şagirdlərin duyğu və düşüncələrinin dil normalarına uyğun qaydada nəqli, təsviri və mühakimə xarakterli rabitəli mətnlər formasında ifadəsini təmin edir. Oxu prosesində qazanılan bacarıqlar yazı ünsiyyəti vasitəsilə genişləndirilərək qarşılıqlı əlaqəyə çevrilir. Yazı qoyulmuş hər hansı problem, yaxud mövzu ilə bağlı fikir və mülahizələrin müvafiq formada verilməsini, görülmüş işin hesabatının hazırlanmasını təmin edir. Ədəbi dilin normaları gözlənilməklə Şagirdlərin tədqiqatçılıq və təşkilatçılıq bacarıqlarını nümayiş etdirməyə imkan yaradır (6, 237).

Dil dərslərində istifadə edilən yazı işlərini müxtəlif metodistlər müxtəlif əsaslarda təsnif etmişlər. Biz bu bögülərə öz münasibətimizi bildirmədən dil dərlərində istifadə edilən bütün yazı işlərini, birinci növbədə, iki yerə ayırırıq:

1. Yalnız şagirdlərin orfoqrafik cəhətdən düzgün yazı vərdişlərini inkişaf etdirən yazılar;
2. Düzgün yazı vərdişlərini inkişaf etdirməklə bərabər şagirdlərin rabitəli nitq vəırdişlərini, müstəqil düşüncəsini və əməli fəaliyyətini formalaşdıran yazılar.

Birinci qrup yazılara: a) orfoqrafik lüğətlərlə iş; b) üzündənköçürmə və əzbər yazılar; c) müxtəlif növ imlalar (mətn dəyişikliyi edilən və edilməyən) aid edilə bilər. Yoxlama imla istisna olmaqla digər yazı növləri öyrədici xarakter daşıyır (onlarda da yoxlayıcı elementlər inkar olunmur) (2, səh.250).

İmlalar şifahi nitqlə yazılı nitqi əlaqələndirən inteqrativ yazı növüdür. İмла yazılardan iki məqsədlə istifadə olunur: öyrətmək və yoxlamaq. İmlalar orfoqrafik çalışmaların ən məhsuldar növüdür. Orfoqrafiya və orfoepiyanın sintezi olan imlalar Azərbaycan dili dərslərinin tərkib hissəsidir. İmlalar üzrə işin düzgün təşkili şagirdlərin savadlılığını artırır. Onların müvafiq bilik və bacarıqlara yiyələnməsini sürətləndirir. Azərbaycan dili dərslərində mütəmadi olaraq öyrədici imlalardan istifadə olunmalıdır. Yalnız bu halda şagirdlər öyrəndikləri orfoqrafik qaydaları dəfələrlə işlətməklə yadda saxlayır, vərdişə çevirirlər (6, 248) .

İmlaların bir qrupu (xəbərdarlıqlı, izahlı, görmə imlalar və əzbər yazılar) şagirdlərin yalnız orfoqrafik savada yiyələnmələrinə xidmət edirsə, ikinci qrupu (seçmə, yaradıcı və sərbəst imlalar) həmin xidmət sahəsi ilə yanaşı, həm də rabitəli nitqin inkişafına kömək göstərir. Üçüncü qrupu (yoxlama, lüğət və adi imlalar) isə öyrənilmiş qrammatik, orfoqrafik qaydaları bir daha möhkəmləndirməklə, bu sahədə məktəblilərin bilik, bacarıq və vərdişlərinin səviyyəsini meydana çıxarmaq üçün tətbiq olunur. Ona görə də hər hansı mövzu ilə əlaqədar təqdim edilən imlalarda müəyyən sistem gözlənilməli, işin təşkilində tələskənliyə yol verilməməlidir. İmlaların hər bir növü üzrə aparılan işlər şagirdləri bir pillədən digərinə adlamağa kömək göstərməlidir (1, səh.370).

Könül Nəhmətova 2020-ci ildə nəşr olunan "Yazı işinin təşkili metodikası" vəsaitində imla yazıları barədə "şifahi nitqlə yazılı nitqi əlaqələndirən inteqrativ yazı növüdür. İmla yazılardan iki məqsədlə istifadə olunur: öyrətmək və yoxlamaq " demişdir. Müəllif imlanın növlərini aşağıdakı kimi təsnif etmişdir:

Tədris məqsədinə görə imlanın növləri:
-öyrədici imla;
-öyrədici-yoxlama imla;
-"özünü yoxla";
-yoxlama imla.
Mətn formasına görə imlanın növləri:
-lüğət imlası;
-vahid orfoqram üzrə çətinliklər əsasında imla;
-bir neçə orfoqrafik qayda əsasında imla;
-işlənmə dairəsinə görə və ya leksik-qrammatik qruplara görə sözlərin imlası;
-rabitəli mətn əsasında imla.
Dinlənilən mətnin yazı xarakterinə görə imla:
-dinlənilən mətni dəyişmədən imla;
-dinlənilən mətni dəyişərək imla;
-seçmə imla;
-müəyyənləşdirici imla;
-bərpaedici imla.
Dinlənilən mətnin qrafik təsviri ilə imla:
-sxem şəklində imla;
-şərti işarələrlə imla;
-rəqəmlərlə imla.
Dinlənilən mətnin izahının verilmə vaxtına görə imla:
-xəbərdarlıqlı imla;
-kommentariyalı imla;
-izahlı imla.
əlavə tapşırığın mürəkkəblik səviyyəsinə görə imla:
-yaradıcı imla;
-sərbəst imla;
-mətni davam etdirməklə imla;

-qrammatika üzrə tapşıqla imla.

Mətnin qəbul edilməsi formasına görə imla:

-səsli imla;

-görmə imla;

-əzbər imla (3, səh.36-37).

Təcrübədən anlaşılır ki, öyrədici imlaları diqtə olunan mətnin dəyişib-dəyişməməsindən asılı olaraq iki yerə ayırmaq mümkündür:

a) mətndə dəyişiklik aparılmadan yazdırılan imlalar;

b) mətndə dəyişiklik aparılmaqla yazdırılan imlalar.

A bəndinə daxil olan imlalara xəbərdarlıqlı, izahlı, görmə imlalar və əzbər yazı aiddir. B bəndinə isə seçmə, yaradıcı və sərbəst imlalar daxil edilir. Yoxlama imlanın özünü də iki yerə ayırmaq olar: lüğət üzrə imla; adi imla (1, səh.371).

*Yaradıcı imla* şagirdlərə öz fikirlərini müstəqil olaraq ifadə etmək və qazanılmış orfoqrafik vərdişləri möhkəmləndirmək imkanı verən yazı növüdür. Bu imla şagirdlərin yaradıcı qabiliyyətini inkişaf etdirməkdə mühüm rol oynayır. Yaradıcı imlalarda şagirdlər ancaq diktə edilənləri yazmaqla kifayətlənmir, diktə edilən söz və ya cümlələrə müəyyən şərtlərə uyğun əlavələr edir, onu tamamlayır və sonra yazırlar (2, səh.255). Yaradıcı imlalar və inşa yazı növləri bənzərdir, belə ki bu növ imlaları inşa yazıları və esselərin tərtibinə keçid mərhələsi hesab edə bilərik. Bu növ imlalar şagirdləri gələcəkdə inşa, esse, hekayə və s. yazmağa hazırlayır, onun təxəyyülünü zənginləşdiri, obrazlı düşünməyə vadar eliyir və yazı bacarıqlarını formalaşdırır.

Fəal təlimdə məqsəd şagirdlərin məntiqi, tənqidi və yaradıcı təfəkkürünü inkişaf etdirməkdir. Bu prosesdə yaradıcı imlalar çox faydalı ola bilər. Bu növdə olan imlaların inşa yazılarından fərqi ondadır ki, burada şagirdlərə müxtəlif sözlər (açar sözlər) təqdim olunur və onları işlətlətməklə (hər biri ayrı cümlədə)cümlələr tərtib etmələri istənilir. Bu cümlələr bir-biri ilə məntiqi, leksik-qrammmatik cəhətdən əlaqəli olmalı və nəticədə rabitəli bir mətn yaranmalıdır. Əgər inşa yazıları üçün mövzu (başlıq) və müxtəlif növlü plan (sual cümləsi formasında, tezis formasında, başlıq formasında, sitat formasında) təqdim olunursa, yaradıcı imlalarda bu rolu sözlər yerinə yetirir. Şagirdlərə hansı sualların, hansı sözlərin təqdim olunmağı da çox önəmlidir. Burada müəllimin yaradıcılığı və peşəkarlığı mühüm rol oynayır.

Ana dili tədrisi prosesində verilən suallar şagirdi düşünməyə, axtarıb kəşf etməyə yönəldən yaradıcı suallar olmalıdır. Böyük alman şairi Höte yazır ki, "ağıllı cavab almaq üçün ağıllı sual vermək lazımdır". Biz yadda saxlamalıyıq ki, dil öyrənmək sadəcə nədənsə hali olmaq deyil, həyati bacarıqların bir hissəsidir. Şagird təkcə sözün ifadə etdiyi mənasını əzbərləməklə yadında saxlamamalı, onu leksikonunda özününkü etməyi bacarmalıdır. O, bildiyi sözü, cümlənin, mətnin daxilində hər hansı bir məqamda istifadə etmək bacarığına nail olmalıdır. Şagird başa düşməlidir ki, söz onun əlində mum kimi ola bilər. İstədiyi məqamda adi bir kəlməni obrazlı ifadəyə, müdrik kəlama, ideomatik ifadəyə çevirə bilər (7, səh.102).

*Xəbərdarlıqlı imla.* Adından məlum olduğu kimi, xəbərdarlıqlı imlada tədris olunan mövzu ilə bağlı çətin orfoqramlar cümlənin, yaxud rabitəli mətnin diqtəsindən əvvəl şagirdlərin nəzərinə çatdırılır, onun yazılışında səhvə yol veriləcəyi ehtimal olunan hallar göstərilir, sözlərin düzgün izahı verilir. Bu imla əsasən, ayrı-ayrı cümlələr, bəzən də rabitəli mətnlər üzrə aparılır. Bu, Azərbaycan dilindən keçilən bütün mövzularla bağlı çətin orfoqramların öyrədilməsinə həsr olunur (1, səh.373-374). Məsələn, müəllim söz sonnda bəzi cingiltili samitlərin kar kimi tələffüzünü (kənd-kənt, ağac-ağaç, tüfəng-tüfənk) diqqətə çatdırmaqla onlara sait səs artırıb yazılışı dəqiqləşdirmək qaydası (kənd-kəndin, ağac-ağaca, tüfəng-tüfəngi) öyrətmişsə, xəbərdarlıqlı imla da buna müvafiq aparılmalıdır. Xəbərdarlıqlı imlanı dərslikdəki mətn əsasında aparılmasının müsbət cəhəti ondadır ki, səhvlər üzərində təshihi şagirdlər özü kitaba baxmaqla apara bilir, bir növ üzündənköçürmə yazılarda olduğu kimi səhvlərini özləri müəyyənləşdirirlər (2, səh.252-253).

Ola bilər ki, müəllim hər hansı mövzu ilə əlaqədar xəbərdarlıq etmədən cümləni (yaxud mətni) diqtə etsin. Bu zaman şagirdlər çətinlik çəkdikləri sözlərin düzgün yazılışını öyrənmək üçün müəllimdən soruşsun, yaxud da müəllim yazılışı çətin sözü diqtədən əvvəl yazı taxtasında kök və şəkilçiyə ayırsın, onun düzgün yazılışı formasını şagirdlərə başa salsın. Sonra söz yazı taxtasından silinərək müəllim tərəfindən diqtə olunsun. Qabaqcıl müəllimlər bu işin başqa variantından da istifadə edirlər. Məsələn, müəllim diqtə olunacaq cümlələri (mətni) əvvəlcədən yazı taxtasına yazıb, üstünü

örtür və sonra diqtə edir. İşin sonunda yazı taxtasındakı cümlələrin (mətnin) üstü açılır. Şagirdlər imlalarını yazı taxtasındakı ilə tutuşdurur, hər kəs öz səhvini düzəldir. İşin belə təşkili şagirdləri maraqlandırır, onlarda düzgün yazmaq həvəsi, dərin optimizm yaradır. Təcrübə göstərir ki, xəbərdarlıq baxımından sinfə şagirdlərin diqqətini səfərbəredici sual və tapşırıqlar da vermək olar, məsələn: "Diqqətli olun", "Bu cümlədə filan sözü necə yazacağınızı yadınıza salın", "Sənnən kimi tələffüz etdiyiniz bu sözün yazılışı necədir?", "şayir", "məllim" kimi tələffüz olunan bu sözlər necə yazılır?" və s. (1, səh.375-376).

*İzahlı imlada* isə mətn yazıldıqdan sonra ayrı-ayrı orfoqramların izahı tələb olunur. İzahlı imlada mətn bütövlükdə yazdırılır, sonra cümlə-cümlə oxularla izahat tələb olunur. Aparılan izahat və təhlil yeni öyrədilmiş qaydanı deyil, keçmişdə mənimsənilmiş qaydanı deyil, keçmişdə mənimsənilmiş qaydanı da əhatə edə bilər (2, səh.253). İzahlı imlalar şagirlərin diqqətini deyilişi və yazılışı fərqlənən, çətinlik törədən sözlərin düzgün yazılış qaydasına, keçilmiş qaydaların düzgün şəkildə tətbiqinə yönəldən faydalı yazı növlərindən biridir.

Xəbərdarlıqlı imla izahlı imladan nə ilə fərqlənir? Əgər xəbərdarlıqlı imlada izahat mətnin diqtəsindən əvvəl verilirsə, izahlı imlada onun əksinə olaraq, əvvəlcə mətn yazılır, sonra izahat işi aparılır. Bu, xəbərdarlıqlı imlaya nisbətən daha müstəqillik tələb etsə də, onların yoxlanmasında (səhvlərin təhlilində) eyni yollardan istifadə olunmalıdır. Əslində imlanın bu iki növü arasındakı sərhəd sürüşkəndir. Onların hər ikisində müəyyən orfoqramın yazılışı ilə əlaqədar qayda və nəzəri biliklər soruşulur, yada salınır, xatırladılır, onların təcrübəyə tətbiqi təmin olunur, şagirdlərin şüurunda möhkəmləndirilir (1, səh.375-376).

*Sərbəst imla* növü ifadə yazılarına bənzərdir, belə ki, burada da şagirdin dinlədiyi mətndə dəyişiklik edə bilmək haqqı vardır. Sərbəst imlaları ifadə yazılarına hazırlıq və keçid mərhələsi kimi dəyərləndirmək olar. Fərq isə ondadır ki, ifadə yazılarında müəllim üç dəfə mətni oxumalıdır və ya səsləndirməlidir, sonra isə plan tərtib olunur və şagirdlər mətni yadda saxladıqları kimi qələmə almağa başlayırlar. bu proses həm sinifdə təşkil oluna bilər, eyni zamanda ev tapşırığı olaraq da şagirdlərə tapşırıla bilər. Sərbəst imlalarda isə mətn hissə-hissə oxunulur, səsləndirilir, bir abzas şagirdlər tərəfindən yazıldıqdan sonra isə növbəti abzasa keçmək olar. "Sərbəst imlalar şagirdlərin orfoqrafik vərdişlərini gücləndirməklə bərabər, onların fəal lüğət fondunu da "qıcıqlandırır", məntiqi təfəkkürünü inkişaf etdirir. Bu zaman şagirdlər parçadakı fikri öz cümlələri ilə ifadə edə bilmək, orijinal mətnə dəyişiklik etmək səlahiyyətinə də sahibdirlər (2, səh.255).

**NƏTİCƏ**

Məqalədə tədqiqata cəlb edilən imla yazı növləri və onların şagirdlərin təfəkkürünün inkişafında rolu mözusu aktuallıq kəsb edir. Tövsiyə edərdik ki, dil müəllimləri imla yazılarının bütün növlərindən bəhrələnsinlər, çünki hər bir növ ayrılıqda şagirdlər üçün öz töhfəsini verir və hərtərfli inkişafında əhəmiyyətli rol oynayır. Könül Nəhmətova "Hansı imla növünə üstünlük verilməlidir?" sualına haqlı olaraq "Cavab birmənalıdır: yalnız bütün imla növlərindən istifadə etməklə dil təliminde və savad artımında yüksək nəticə əldə etmək olar. Çünki bacarıq və vərdişlərin qazanılmasında hər bir imla növünün öz funksiyaları vardır" demişdir (3, 37).

Hesab edirik ki, Azərbaycan dilinin tədrisi sahəsində müasir tələblərə cavab verən ədəbiyyat baxımından da çatışmazlıqlar vardır. Çünki bəzi mövzular hələ də bu sahədə olan ənənəvi ədəbiyyata uyğun olaraq tədris olunur. Amma dünya təcrübəsi, məktəb müəllimləri üçün hazırlanan son metodik vəsaitlər ilə tanış olanda görürük ki, bəzi məqamlar (yazının rabitəliliyi, maililiyi və s.) artıq öz əhəmiyyətini itirmişdir. Ümid edirik ki, gələcəkdə çoxsaylı və günün tələblərinə cavab verən, daha çox praktik yönümlü, mövzular ilə bağlı çalışmalar, tapşırıqlar öz əksini tapan dərs vəaitləri hazırlanaraq istifadəyə veriləcəkdir.

**ƏDƏBİYYAT SİYAHISI**

1. Ağarəhim. Əsərlər. 20 cilddə. XX cild (Ana dilinin tədrisi metodikası (ibtidai siniflərdə). Bakı, BQU nəşriyyatı, 2015.
**2.** Balıyev H., Balıyev A. Azərbaycan dilinin tədrisi metodikası. Bakı, 2014.
3. Nəhmətova Könül. Yazı işinin təşkili metodikası.Bakı, 2020.
4. Nəhmətova Könül. Esse: yazı tiplərinə görə növləri. Bakı, 2022.
**5.** Kərimov Yəhya. Ana dilinin tədrisi metodikası. Bakı, 2011.
6. Cəfərova Nabat. İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası. Bakı, 2016.
7. Nəbiyeva Şəlalə. Ana dilinin tədrisi metodikasının aktual problemləri. Metodik vəsait. Bakı, 2010
8. Şərqiyyə Paşayeva. Ana dilinin tədrisində nəzəri və praktik məsələlər. Bakı, 2007
9. «Azərbaycan dili» tədris fənni üzrə ibtidai siniflər üçün dərslik və metodik vəsaitlər.

# ADVANCING EDUCATION: A COMPREHENSIVE REVIEW ON BLENDING CONVENTIONAL AND CONTEMPORARY TEACHING TOOLS

**FARIDA SHARIFOVA**
Baku Engineering University
Faculty of Pedagogy/
Departmet of foreign languages
fasharifova@beu.edu.az
AZERBAIJAN/BAKU

**Abstract**

This study presents a thorough comparative review into the effectiveness of contemporary and conventional teaching methodologies. By analyzing various aspects of pedagogical practices, this study aims to provide a nuanced understanding of the relative merits and limitations of both approaches. Contemporary teaching methods prioritize student engagement and active participation in the learning process. This shift towards more dynamic approaches aims to fully involve students' minds and foster a constructivist approach to education. In contemporary teaching, students take precedence in curriculum development and planning, enabling them to play an active role in enhancing their knowledge and skills. Teachers serve as guides, directing students towards learning objectives while encouraging participation in activities that utilize innovative teaching methods. This transition responds to the contemporary need to reduce competition among students, promote collaboration, and cultivate a conducive learning environment. The study concluded that unlike contemporarymethods focused on memorization,conventional teaching emphasizes interactive techniques such as questioning, demonstration, explanation, application, and collaboration, fostering a more inclusive and engaging learning experience. As knowledge in science and technology expands, there is a growing demand for innovative minds capable of exploring new frontiers. Embracing contemporary teaching methods becomes essential in preparing students to thrive in a technology-driven era, where creativity and innovation are paramount for individual, societal, and national development. The findings of the investigation reveal a significant positive impact of contemporary teaching methods on student engagement, understanding, and retention of information. Compared to contemporaryteaching approaches, contemporary methods demonstrate higher levels of student involvement, critical thinking, and collaboration.

**Key words:** blending tools, contemporary and conventional, teaching methodologies.

**TƏHSİLİN TƏKMİLLƏŞDİRİLMƏSİ: ƏNƏNƏNƏVİ VƏ MÜASİR TƏDRİS METODLARININ MÜQAYİSƏSİNƏ DAİR**

Məqalə müasir və ənənəvi tədris metodologiyalarının effektivliyinə dair hərtərəfli müqayisəli təhlilindən bəhs edir. Pedaqoji təcrübənin müxtəlif aspektlərini təhlil edərək, məqalə hər iki yanaşmanın üstünlükləri və çatışmazlıqları haqqında anlayışı təmin etmək məqsədi daşıyır. Müasir tədris metodları tələbələrin tədrisə cəlb edilməsinə və təlim prosesində fəal iştirakına üstünlük verir. Daha dinamik yanaşmalara doğru bu keçid tələbələrin zehnini açmaq və təhsilə konstruktiv yanaşmağa təşviq etmək məqsədi daşıyır. Müasir tədrisdə tələbələrin tədris prosesinə aktiv şəkildə cəlb olunması, interaktiv iştiraka üstünlük verilir, bununla da onlara öz bilik və bacarıqlarının artırılmasında fəal rol oynamağa imkan yaranır. Müəllimlər innovativ tədris metodlarından istifadə edən fəaliyyətlərdə tələbələri fəal iştiraka təşviq etməklə yanaşı, onlara təlimin məqsədlərinə yönəldən bələdçi rolunu oynayır. Bu keçid tələbələr arasında rəqabəti azaltmaq, əməkdaşlığı təşviq etmək və əlverişli öyrənmə mühitini inkişaf etdirmək üçün müasir ehtiyaca cavab verir. Tədqiqat belə nəticəyə gəldi ki, yadda saxlamağa yönəlmiş müasir metodlardan fərqli olaraq, ənənəvi tədris sual, nümayiş, izahat, tətbiq və əməkdaşlıq kimi interaktiv üsullara önəm verir, daha inklüziv və cəlbedici öyrənmə təcrübəsi təklif edir. Elm və texnologiya sahəsində biliklər genişləndikcə, yeni sərhədləri kəşf etməyə qadir olan innovativ ağıllara tələbat artır. Müasir tədris metodlarının mənimsənilməsi tələbələrin fərdi, ictimai və milli inkişaf üçün yaradıcılıq və innovasiyanın əsas əhəmiyyət kəsb etdiyi texnologiyaya əsaslanan dövrdə inkişaf etməyə hazırlamaqda önəm ərz edir. Tədqiqatın nəticələri müasir tədris

metodlarının tələbələrin fəallığına, məlumatın qavranılmasına və yadda saxlanmasına əhəmiyyətli müsbət təsirini ortaya qoyur. Müasir tədris yanaşmaları ilə müqayisədə, müasir metodlar tələbələrin daha yüaktiv iştirakını, tənqidi düşüncəni və əməkdaşlığı intensivləşdirir.

**Açar sözlər:** qarışıq üsullar, müasir və ənənəvi metodlar, tədris metodologiyaları.

**Ключевые слова:** смешение инструментов, традиционные и современные методы, методологий обучения.

**Introduction:** Modern methods of teaching have become valuable sources for teachers nowadays. after years and decades of using conventional teaching strategies, some teachers have started to shift their attention to different and creative techniques to use in the classroom.

The importance of this study is to discuss conventional methods of teaching along with contemporary methods of teaching to begin using them in lesson. contemporary teaching methods have long been the cornerstone of education, relying on established practices such as lectures, textbooks, and in-person instruction. In contrast, contemporary teaching methods leverage technological advancements to introduce innovative approaches, including multimedia presentations, online resources, and interactive learning platforms. The evolution of teaching methods reflects a shift towards more dynamic and interactive instructional strategies tailored to meet the needs of contemporary learners. Contemporary and contemporary teaching methods refer to different approaches used in education. The differences between them are based on factors such as the role in the learning process, student interaction, use of technology, and student-centeredness. Contemporary teaching methods typically refer to the classic approaches used in classroom instruction. A teacher-centered approach is adopted, and students often play a passive role. Lessons typically rely on textbooks, classroom presentations, and teacher lectures. The teacher is considered an authority figure who imparts knowledge and ensures that students receive it. New teaching methods, which we call contemporary teaching methods, are primarily based on actions and aimed at fully engaging the student's mind in the learning process. In contemporary teaching methods, the student is the highest priority in teaching and curriculum planning. Thus, students actively participate in the entire process of enhancing their knowledge and skills, which is called the constructivist approach. On the other hand, the teacher guides students and helps them focus on the subject objectives. All this is achieved through participation in activities and the implementation of innovative, contemporary teaching methods. The new demand of the time or the students' need is the implementation of contemporary teaching methods, which will help reduce competition among students, promote cooperation, and improve a healthy learning environment.

Over the years, significant changes have occurred in teaching methods. Unlike old reading practices such as memorization, contemporary interactive teaching methods are now being applied, and positive results are observed. These methods represent an educational reform that provides a completely different perspective on teaching/learning because contemporary teaching methods, unlike contemporaryteaching methods, do not treat all students at the same level in terms of understanding. Instead of teacher-centered teaching methods, it focuses on questioning, demonstration, explanation, application, and collaboration methods and is more activity-based. In recent years, the volume of knowledge in science and technology and human ability to adapt to new knowledge in science and technology have significantly increased. Therefore, there is a tremendous demand for innovative and creative minds to explore various yet unknown areas. In the contemporary world, it is imperative to adopt contemporary ways to cope with the era of information technology. Students need to be educated to keep pace with the 21st century, an era driven by technology, which requires creative and innovative minds for the development of individuals, society, and the nation. G. Huseynzade emphiseses that the use of new teaching technologies aims to enhance the quality of the teaching process, make more efficient use of teaching time, reduce the reproductive activity of students, and create conditions for students to achieve high educational outcomes. G. Huseynzade (2001).

The technological approach is primarily focused on managing the educational process, which sets clear goals and aims to achieve them: technology is prepared for pedagogical planning, based on the teacher's specific methodology, philosophical position; the technological chain of actions, operations, communications is constructed in accordance with target parameters with serious expected result format; the functioning of technology ensures mutual, relevant activity of teachers and students

on the basis of the contract, taking into account the principles of individualization and differentiation, optimal implementation of human and technical capabilities; phased planning and sequential implementation of pedagogical technology elements should ensure both repeated by any teacher and obtaining the results envisaged by all students; the individual component of technology is a diagnostic stage consisting of criteria, indicators, and tools for measuring performance. Education technology is a collaborative system of activity involving students and teachers in the planning, organization, and direction of the educational process to achieve certain results by creating comfortable conditions for participants. New technologies in the training process. Institute of educational problems of the Republic of Azerbaijan. (2011).

Contemporaryteaching methods have long been prevalent in educational settings, characterized by lectures, textbooks, and teacher-centered instruction. In contrast, contemporary teaching methods leverage technological innovations to promote active learning, collaborative engagement, and personalized instruction. The evolution of teaching methods reflects a paradigm shift towards learner-centered approaches tailored to meet the diverse needs of students in the digital age. Some scholars have made significant contributions to understanding the effectiveness of contemporary teaching methods and their impact on student learning outcomes. Those researches serve as valuable resources for educators and policymakers seeking to improve teaching practices and enhance student achievement. In his book "Visible Learning: A Synthesis of Over 800 Meta-Analyses Relating to Achievement," Hattie synthesizes research findings from numerous studies to identify teaching practices that have the greatest impact on student learning. He emphasizes the importance of visible learning, where students are actively engaged in their learning process and teachers employ strategies that make learning outcomes visible and measurable. Hattie's work highlights the effectiveness of student-centered approaches and the use of formative assessment to enhance learning. (John Hattie 2009).

Furthermore, the study uncovers that students taught using contemporary methods exhibit greater enthusiasm for learning, as well as enhanced problem-solving abilities and transferable skills. These findings suggest that embracing contemporary teaching methods is crucial for meeting the evolving needs of students in the 21st century. Contemporary teaching methods, on the other hand, are student-centered and adopt a more interactive approach. Environments are created where students can guide their own learning processes, develop problem-solving and critical thinking skills. Technology is often part of these methods and is used to enrich the learning experience. Interactive activities such as group work, project-based learning, and simulations are commonly preferred. Contemporaryand contemporary teaching methods do not have a mutually exclusive relationship but rather a continuum and transformational relationship. Some aspects of contemporarymethods can be combined with contemporary methods to create a more effective learning experience. Teachers often balance these methods based on needs and objectives.

**Methodological framework:** This study employs a comprehensive research framework, drawing on qualitative research, and meta-analytic techniques to compare the effectiveness of contemporaryand contemporary teaching methods Quantitative data can be collected through standardized assessments and surveys, while qualitative insights can be gleaned from interviews and classroom observations in the future investigations.

**Novelty and Implications.**The findings of this study sheds light on the relative effectiveness of contemporaryand contemporary teaching methods and provide valuable insights for educators, policymakers, and educational practitioners. Understanding the strengths and limitations of each approach will inform decision-making processes regarding curriculum development, instructional design, and technology integration in educational settings.

**Conclusion**

In conclusion, this comprehensive review contributes to our understanding of the effectiveness of contemporaryand contemporary teaching methods in contemporary education. By synthesizing empirical research and theoretical perspectives, this study underscores the importance of adopting a balanced and contextually relevant approach to instructional design and delivery. Moving forward, further research and collaboration are needed to enhance teaching practices and promote student success in diverse learning environments.

The concept of “contemporary teaching method" is one of the teaching methods where the latest educational resources and technologies are used and implemented. the main purpose of this method is to regulate and improve the learning process of students effectively with the application of contemporary educational technologies and innovative pedagogical experiences. this method utilizes interactive lesson organization, multimedia teaching tools, contemporary learning platforms, self-directed learning, etc. in other words, "the most contemporary teaching method" reflects teaching practices that are tailored to the needs of today's students and the experiences demanded by contemporary educational resources. Howard Gardner who is a psychologist known for his theory of multiple intelligences, which emphasizes the importance of diverse teaching methods to accommodate different learning styles. His work has influenced discussions on contemporary teaching practices/methods that cater to the individual needs of students. Gardner, H. (1993). Darling-Hammond who is a prominent figure in the field of education policy and teacher preparation used specific terms related to contemporary teaching methods, such as "student-centered," "project-based," or "personalized instruction. "Her research often examines effective teaching practices, including the use of contemporary instructional methods to enhance student learning outcomes. (Darling-Hammond, l. 2006).

The blending of contemporaryand conventional teaching methods refers to the integration of established pedagogical practices with contemporary educational approaches. This blending aims to harness the strengths of both contemporaryand contemporary methods to create a balanced and effective learning environment. By incorporating elements such as lectures, textbooks, and in-person instruction alongside multimedia presentations, online resources, and interactive learning platforms, educators can cater to diverse learning styles and enhance student engagement. The effectiveness of blending contemporaryand conventional methods lies in its ability to provide a comprehensive and flexible approach to education. Contemporary methods offer stability, structure, and familiarity, while contemporary methods offer innovation, interactivity, and customization. By combining these approaches, educators can address the diverse needs of students, promote critical thinking skills, and foster a deeper understanding of complex concepts. Research suggests that blended teaching approaches can lead to improved learning outcomes, increased student motivation, and enhanced retention rates. By leveraging a variety of instructional strategies and resources, educators can create dynamic learning experiences that cater to the individual needs and preferences of students.

Overall, the blending of contemporaryand conventional teaching methods offers a holistic approach to education that maximizes the benefits of both approaches. By adapting to the changing needs of students and integrating innovative technologies, educators can create engaging and effective learning environments that prepare students for success in the contemporary world.

**REFERENCES**

Darling-Hammond, l. (2006). Powerful learning: What we know about teaching for understanding. Jossey-Bass.288

Gardner, H. (1993). Multiple intelligences: the theory in practice. Basic Book, New York.23.

Hattie, J. (2009). Visible learning: a synthesis of over 800 META-ANALYSES relating to achievement. Routledge.1st edition,392-393.

Huseynzade G.(2001) Teaching speech communication in foreign language. Baku: Mutardzhim, 314.

Larimer, R. E., & Schleicher, L. (1999). New Ways in Using Authentic Materials in the Classroom. New Ways in TESOL Series II: Innovative Classroom Techniques. 220 -223.

McGraw-Hill Trade.eberg Scott, W. A., & Ytreberg, L. H. (1990). Teaching English to children. New York: Longman. 290.

New technologies in the training process. Institute of Educational Problems of the Republic of Azerbaijan. (2011). Baku. Translator.368.

Pensky, M. (2002). Digital game-based learning. New York. 25- 26.

# TƏLƏBƏLƏRDƏ SENSOR GÖRMƏ YADDAŞIN TƏDQIQI

**Zeynəb Məmmədova**
Qərbi Kaspi Universiteti
Psixologiya fakultəsi
memmedovazeyneb082@gmail.com
Bakı, Azərbaycan
Elmi rəhbər: b.ü.f.d. Natəvan Kərəmova

**XÜLASƏ**

İnsan psixologiyasında baş verənlərin hamısı izsiz ötürülmür, yəni orada müəyyən mənada hifz olunur. Psixikanın əsas və vacib xüsusiyyətlərindən biri də fasiləsiz olaraq informasiyanın toplanması qabiliyyətidir. Yaddaşın insanın həyatı və yaşaması üçün əhəmiyyəti danılmazdır. Bütün psixi proseslərin ən önəmli xüsusiyyətlərini özündə saxlayan yaddaş şəxsiyyətin vahidliyini və tamlığını formalaşdırır. Yaddaş proseslərini öyrənən psixoloqlar yaddaşın müxtəlif növlərini öyrənməklə insanların hər hansı bir məlumatı yadda saxlamağı və onu qoruyub bir çox bacarıqlara sahib olmasını müəyyənləşdirmişdilər. Yaddaşın görmə yaddaş, eşitmə yaddaş, hərəkətli yaddaş, toxunma yaddaşı kimi növləri vardır. Yaddaşın növlərindən biri olan görmə yaddaşı qavrayışın emalı ilə nəticələnən sinir təsvirlərinin kodlaşdırılması, saxlanması və axtarışı arasındakı əlaqəni təsvir edir. Görmə yaddaşı insanlara öz vizual mühitini görməyə, gördüklərini təşkil etməyə, vizual məlumatları şərh etməyə və həmin məlumatları geri qaytarıla bilən yaddaş şəklində kodlamağa imkan verən mürəkkəb, psixi proseslər toplusudur. İnsanlar mühüm həyat hadisələrini və gündəlik həyatlarının kiçik detallarını xatırlamaq üçün görmə yaddaşından istifadə edirlər. Görmə yaddaşı görmə təcrübəsi ilə bağlı hisslərimizin bəzi xüsusiyyətlərini qoruyan yaddaş formasıdır. Onun vasitəsilə yaddaşımızdan obyektlərin, yerlərin, heyvanların və insanların zehni görüntüsünü çıxara bilərik. Görmə yaddaşı insan yaddaşını meydana gətirmək üçün birləşən bir-biri ilə əlaqəli hissələr olan bir neçə idrak sistemlərindən biridir. Qərbi Kaspi Universitetinin "Science Group" gənc tədqiqatçıları tərəfindən müxtəlif ixtisaslar üzrə 1-ci və 4-cü kursda təhsil alan 17-21 yaşlı bakalavr tələbələri arasında görmə yaddaşı tədqiq edilmişdir. Tədqiqatlar üç mərhələdə həyata keçirilmişdir: Adi dərs günlərindən birində, imtahandan əvvəl və imtahandan sonra. Tədqiqatlar nəticəsində sensor yaddaşın bir növü olan görmə yaddaşı tədqiq edilmişdir.

**AÇAR SÖZLƏR:** Yaddaş, görmə yaddaşı, sensor sistem, 1-ci və 4-cü kurs tələbələri, analizatorlar, reseptorlar.

## GİRİŞ

Yaddaşın funksional qabiliyyəti hər bir insan üçün fərdi xüsusiyyət daşıyır. Ədəbiyyat məlumatlarına, əsasən yaddaş aşağıdakı növlərə bölünür: 1) Görmə yaddaşı; 2) Eşitmə yaddaşı; 3) Hərəkətli yaddaş; 4) Toxunma yaddaşı.

Sadalanan yaddaş növləri insanlarda müxtəlif cür inkişaf edə bilər. Fikrimcə, formalar, rənglər və insan simaları,təbiət lövhələri,yəni görmə yaddaşı heykəltaraşlar, rəssamlar və dizaynerlər üçün çox önəmlidir.Onlar gördüyü obrazları daha yaxşı yadda saxlayırlar. Eşitmə yaddaşı musiqi ilə məşğul olan insanlar üçün çox əhəmiyyətlidir,onlar eşitdikləri təəssüratları daha yaxşı yadda saxlaya bilirlər. Məlumdur ki, görmə məhdudiyyəti olan insanların barmaqlarında dəri hissiyatı yüksək olduğu üçün əşyalara toxunmaqla onları bir-birindən ayırd edirlər, buna səbəb dəridə olan reseptorların daha yaxşı inkişaf etməsidir. İdmanla, fiziki işlə məşğul olan insanlarda isə hərəkətli yaddaş inkişaf etmişdir. Yerimə,yazma, fiziki cəldlik, o cümlədən əzələnin hərəkəti ilə bağlı bütün hadisələri yadda saxlayırlar. Tərəddütsüz demək olar ki, bütün yaddaş növləri bir-biri ilə qarşılıqlı əlaqədədir. Müxtəlif insanlara təsir göstərən amillər eyni cür ifadə olunmur və əgər birində hansısa amil hakimdirsə, digərində aşağı səviyyədə rol oynayır. İnsanda qoruma və yadda saxlama qabiliyyətinin tamamlayıcı səciyyəsi bu amillərin ümumiləşdirilməsi kimi müəyyən olunur. Gündəlik həyatda orqanizm ətraf mühitin təsirlərinə məruz qalır. Bunun nəticəsində orqanizmdə dəyişikliklər baş verir.

Ədəbiyyatdan məlumdur ki,orqanizmdə baş verən dəyişiklikləri və ətraf aləmin təsirini ilk olaraq reseptorlar qəbul edir. Reseptorlar xaricdən gələn qıcıqları qəbul edərək oyanır. Bu qıcıqlandırıcılar

səs, işıq və. s ola bilər. Hər bir reseptorda bir növ qıcığın təsiri nəticəsində oyanma baş verir. Yəni reseptorlar da qıcıqların təhlili baş verir. Sonra reseptorlar qəbul etdiyi məlumatı sinir impulsları şəklində hissi sinir lifləri ilə mərkəzi sinir sisteminə və beyin yarımkürələri qabığının müvafiq hissəsinə ötürülür. Qəbul olunmuş məlumatlar araşdırılır və məlumatlara cavab verilir.

Reseptor qıcıqlandırıcıları qəbul etmək üçün uyğunlaşmış bir orqandır. Reseptorlar həmçinin müəyyən bir qıcığı resepsiya etməyə uyğunlaşır. Məsələn:

1.Tanqoreseptorlar – toxunmanı;

2. Stiboreseptorlar - iylə bağlı olan qıcıqları;

3. Qustoreseptorlar – dadla bağlı olan qıcıqları;

4. Fonoreseptorlar - səsi;

5. Fotoreseptorlar – işığı qəbul etmək üçün uyğunlaşır; (B. Əliyev, L. Cabbarova, 2014).

Müasir bioloji, sosioloji və psixoloji ədəbiyyatda reseptorlar bir neçə qrupda müəyyənləşdirilir:

2. Akgun, S., Greenhow, C. Artificial intelligence in education: Addressing ethical challenges in K-12 settings. *AI Ethics* **2**, 431–440 (2022). https://doi.org/10.1007/s43681-021-00096-7

3. Chan, C. K. Y. (2023). A comprehensive AI policy education framework for university teaching and learning. *International journal of educational technology in higher education*, *20*(1), 38.

4. Chan, C. K., & Hu, W. (2023). Students' voices on generative AI: Perceptions, benefits, and challenges in higher education. *International Journal of Educational Technology in Higher Education, 20*(1), 1-18. https://doi.org/10.1186/s41239-023-00411-8

5. Duckworth, A., & Ungar, L. (2023, January 19). Op-Ed: Don't ban chatbots in classrooms — use them to change how we teach. Los Angeles Times. https://www.latimes.com/opinion/story/2023-01-19/chatgpt-ai-education-testing-teaching-changes

6. Farrokhnia, M., Banihashem, S. K., Noroozi, O., & Wals, A. (2023). A SWOT analysis of ChatGPT: Implications for educational practice and research. Innovations in Education and Teaching International, 1–15. https://doi.org/10.1080/14703297.2023.2195846

7. García-Peñalvo, F.J. (2023). The perception of Artificial Intelligence in educational contexts after the launch of ChatGPT: Disruption or panic? Education in the Knowledge Society,24. https://doi.org/10.14201/eks.31279

8. Heaven, W. D. (2023, April 7). ChatGPT is going to change education, not destroy it. MITTechnology Review. https://www.technologyreview.com/2023/04/06/1071059/-chatgptchange-not-destroy-education-openai/

9. Holmes, W., & Tuomi, I. (2022). State of the art and practice in AI in education. *European Journal of Education*, *57*(4), 542-570. https://doi.org/10.1111/ejed.12533

10.IEEE Corporate Advisory Group (CAG): IEEE guide for terms and concepts in intelligent process automation. The Institute of Electrical and Electronics Engineers Standards Association. 1–16 (2017). https://ieeexplore.ieee.org/iel7/8070669/8070670/08070671.pdf

11.Kostka, I., & Toncelli, R. (2023). Exploring Applications of ChatGPT to English Language Teaching: Opportunities, Challenges, and Recommendations. *TESL-EJ*, *27*(3).

12.The Institute for Ethical AI in Education. Interim report: towards a shared vision of ethical AI in education. https://www.buckingham.ac.uk/wp-content/uploads/2020/02/The-Institute-for-Ethical-AI-in-Educations-Interim-Report-Towards-a-Shared-Vision-of-Ethical-AI-in-Education.pdf. (2020)

13.Torres, J. T., & Mayo, C. E. P. (2023, July 10). AI Eroding AI? A new era for artificial intelligence and academic integrity. Faculty Focus. https://www.facultyfocus.com/articles/teaching-with-technology-articles/ai-eroding-ai-anew-era-for-artificial-intelligence-and-academic-integrity/

# NİTQİN TƏMİZLİYİNİ POZAN AMİLLƏR

**FİL.Ü.F.D.SEVİNC QƏMBƏROVA**
Xəzər Universiteti
Dillər və ədəbiyyatlar departamenti
*sevinc.qemberova@mail.ru*
BAKI, AZƏRBAYCAN

**AYSU QƏNBƏROVA**
Xəzər Universiteti
Filologiya, 3-cü kurs
*aysuqenberova579@gmail.com*
BAKI, AZƏRBAYCAN

**XÜLASƏ**

Dil ünsiyyət vasitəsi, nitq isə onun reallaşdığı prosesdir. Nitq milli, emosional, fərdi, xüsusi, tarixi bir dəyərdir. Mədəni nitqə bir sıra tələblər verilir. Yaxşı nitq mədəniyyətinə yiyələnmək istəyən hər bir şəxs bu tələblərə riayət etməyə çalışmalıdır. Bu tələblər sırasında birinci dərəcəli olanlar, yəni ki, ziyalıların mütləq şəkildə əməl etməli oduqları tələblər vardır. Bu sırada nitqin dəqiqliyi və düzgünlüyünü, nitqin aydınlığını, nitqin təmizliyini, nitqin məntiqiliyini və s. qeyd edə bilərik. Daha sonra isə nitqin nitqin ifadəliliyinə, nitqin zənginliyinə, nitqin yığcamlığına, nitqin orijinallığına və s.də riayət olunarsa çox yaxşı nəticə əldə etmək olar. Qloballaşmanın üstünlükləri olduğu kimi, çatışmazlıqlarından biri kimi elektron məkanda bəzi dillərin işləkliyinin azalması, hətta sıradan çıxmasını qeyd edə bilərik. Eyni zamanda da ekolinqvistikanın ortaya çıxardığı kimi, şahid oluruq ki, ətraf mühitin, ətrafda baş verən hadisələrin dilə çox böyük təsiri vardır.

Məqalədə mədəni nitqin kommunikativ xüsusiyyətlərindən biri olan-nitqin təmizliyi barədə bəhs edilmiş və onu pozan amillər ortaya çıxarılaraq nümunələr ilə verilmişdir. Hazırda ümumxalq dilində nitqin təmizliyinin pozulması və bunun qarşısının alınması məsələləri olduqca aktuallıq kəsb edir.Çünki dilin fonetik, qrammatik, xüsusən də leksik yarusunda bu kimi çatışmazlıqların yayıldığını

müşahidə edirik. Dialekt ünsürlərindən, arqo və jarqonlardan, vulqarizmlərdən, loru və tüfeyli sözlərdən, xüsusən də varvarizmlərdən geniş bir şəkildə istifadə edildiyinin şahidi oluruq. Arzuolunmaz olsa da, həm gənc, həm yaşlı nəsil arasında hibrid bir nitq forması istifadə edilməkdədir. Sovetlər dönəmində dilimizə daha çox rus dilinin təsiri olduğu halda, hazırda türk və ingilis dillərinin təsirini müşahidə edirik. Tədqiqat işinin hazırlanarkən təsviri, müşahidə və müqayisə metodlardan istifadə edilmişdir.

**Açar sözlər: nitqin təmizliyi, amillər, varvarizmlər**

## GİRİŞ

Nitq mədəniyyəti insanlara məxsus ümumi mədəniyyətinin ən vacib və aparıcı tərkib hissələrindən biridir. Bu anlayışa danışıq mədəniyyəti ilə yanaşı, yazı mədəniyyəti də daxildir.Belə yüksək keyfiyyətə yiyələnən şəxs cəmiyyətin ictimai həyatında, onun hər hansı bir sahəsində fəal və məhsuldar iştirak etmək imkanınan malik olur (2, səh.32). Ünsiyyət insan həyatının ayrılmaz bir hissəsidir. İnsan həyatında ünsiyyət olmazsa o məhv ola bilər. Hələ qədim Yunanıstanda nitqin tiplərini ayırmışlar: daxili nitq və xarici nitq. Daxili nitq səssizdir, lakonikdir, situativdir, sərbəstdir. Xarici nitq isə hər səsli nitqdir. Ona müəyyən tələblər qoyulur, belə ki, fikrimizi qarşıdakıların anlayacağı şəkildə, etik normalar çərçivəsində, yığcam olsa belə, əhatəli şəkildə bildirməliyik.

Dünya dilçiliyində dil və nitq anlayışları müəyyən dövrlərdə eyniləşdirilsə belə, ilk dəfə Ferdinand de Sössür tərəfindən hər birinin özünəxas xüsusiyyətlərinin olduğu göstərilmişdir. Hər bir dil bir mədəniyyətin təzahürüdür, onun mental dəyərlərinin ifadəsidir. Nitq isə dilin həyat tapdığı, səsləndirildiyi psixoloji, fizioloji, sosial bir prosesdir. "Dil ümumi, nitq isə fərdidir. Dil hamıya eyni dərəcədə xidmət edir, nitq isə dil daşıyıcısının qabiliyyətindən asılıdır və hərədə bir cür meydana çıxır. Nitq hər hansı məlumatın çatdırılma üsuluna uyğun olaraq hər bir fərdin dilə bələdliyi səviyyədə sırf özünəməxsus şəkildə əmələ gəlir. Nitq mədəniyyəti insanın müxtəlif məqamlarda ünsiyyət məqsədi ilə dildən məqsədyönlü və çətinlik çəkmədən istifadə olunmasına təminat verən biliklərin və vərdişlərin toplusudur" (1, səh.101-102).

İnsanlar haqqında bizdə təəssürat yaradan birinci və ən vacib məsələ məhz onların nitqidir. Həm nə dediyi, həm də necə dediyi vacibdir (6, səh.13). Mədəni nitqə yiyələnmək üçün isə bir sıra tələblərə riayət etmək lazımdır. Yəni ki fikri aydın dəqiq və düzgün şəkildə çatdırmağı bacarmalıyıq. Dilçilik ədəbiyyatında mədəni nitqin bir çox xüsusiyyətləri, ona verilən tələblər öz əksini tapmışdır. Nadir Abdullayev "Mədəni nitqə verilən başlıca tələblər" başlığı altında aşağıdakı xüsusiyyətləri qeyd etmişdir: 1.Nitqin aydınlığı; 2.Nitqin yığcamlığı; 3.Nitqin təmizliyi; 4.Nitqin düzgünlüyü; 5. Nitqin zənginliyi; 6.Nitqin sadəliyi; 7.Nitqin orijinallığı; 8.Nitqin münasibliyi; 9. Nitqin rabitəliliyi (2, səh34-61). "Azərbaycan dilinin nitq mədəniyyəti və kommunikasiya" kitabında başqa cəhətlərin verilməsinə də rast gəlirik. Müəllif göstərmişdir ki, nitq mədəniyyətinin hələ çox qədim dövrlərdə müəyyənləşdirilmiş meyarları dəqiqlik, düzgünlük, məntiqlilik, aydınlıq və anlaşıqlılıq, təmizlik, ifadəlilik, müxtəliflik, estetiklik, sözün yerində işlənməsi kimi anlayışlardır (7, səh. 60). "Azərbaycan dilində işgüzar və akademik kommunikasiya"fənni ilə bağlı nəşr olunmuş ədəbiyyatlarda da bu mövzu öz əksini tapmışdır. Nadir Məmmədli qeyd etmişdir ki: "Ünsiyyət nitq mədəniyyəti ilə əlaqəlidir, o da öz növbəsində kommunikativ keyfiyyətlə müşayiət olunur. Danışan konkret vəziyyəti nəzərə alıb, qarşıya qoyulmuş məqsəd və vəzifələrə uyğun olaraq, ünvana yaxşı təsir göstərən nitqin kommunikativ keyfiyyətlərinə diqqət yetirməlidir. Onlar aşağıdakılardır: münasiblik, zənginlik, məntiqilik, əlverişlilik, təmizlik, dəqiqlik, ifadəlilik, düzgünlük" (5, səh.336).

Göründüyü kimi, nitqin təmizliyini qorumaq ona verilən əsas tələblərdən biridir. Hesab edirik ki, ətraf mühitin təmiz saxlanılması kimi hər bir kəs öz nitqinin təmizliyinin qorunub saxlanılmasına da xüsusi diqqət yetirməlidir. Dilçilik ədəbiyyatında bu amillər bir neçə hissədə qruplaşdırılmışdır. Nadir Məmmədli bu barədə haqlı olaraq yazmışdır ki, işgüzar ünsiyyətdə təmizlik mahiyyətcə düzlüyün təzahürüdür, bir qayda olaraq, müəyyən nitq səviyyəsində, xüsusilə leksik normada özünü göstərir. O nitq təmizdir ki, Azərbaycan ədəbi dilinin hüdudlarından kənara çıxmır, vulqar, arqo, jarqon, tüfeyli, dialekt, parazit, loru sözlərə meyillənmir (5, səh.346). Hazırda bu kimi halların, nitqimizi basan "alaq otlarının" çoxalması, hibrid nitq formalarının yaranması bu mövzunun aktuallaığını daha da artırır. Nitqin təmizliyini pozan bir sıra amillər vardır ki, tədqiqat işində onları nəzərdən keçirərək nümunələr ilə əsaslandıracağıq.

Varvarizmlər. Nitqin təmizliyini pozan amillər arasında ən yayılmışı varvarizmlərdir. Onlar haqqında ancaq "alınma sözlərdir"demək varvarizmləri düzgün ifadə eləmir. Çünki dilimizdə milli sözlərlə yanaşı, bir çox dillərdən olan alınma sözlər də işlədilir ki, onlar da dilimizdə artıq vətəndaşlıq hüququ qazanmışdır. Varvarizmlər isə elə alınmalardır ki, dilimizdə onların qarşılığı vardır. Buna baxmayaraq, dilimizdə olan sözün əvəzinə yersiz olaraq əcnəbi leksemlər və ya nidalar işlədilir. Xalqın, dövlətin başına gələn hər bir şey dildə öz əksini tapır. Tarixi hadisələr ilə əlaqədar olaraq, dilimizə monqol, ərəb, fars, rus sözləri daxil olmuşdur. Sovetlər dönəmində rus dili və onun vasitəsilə dilimizə gələn akınmalarla yanaşı, dilimizdə qarşılığı olan rus kəlimələri də geniş şəkildə istifadə edilirdi. Hazırda isə dildə molan mənzərəni izləsək, görərik ki, estafet daha çox türk və ingilis kəlimələrindədir. Məsələn: falan, çaba göstərmək, başarmaq, tamam, forvard eləmək, print eləmək, follou etmək, ad eləmək, skrin etmək, kopi eləmək, okey və s.

Afad Qurbanov varvarizmləri təhlil edərək bu barədə haqlı olaraq yazmışdır: "Müasir dövrdə istər savadlı və istərsə də az savadlı şəxslərin nitqlərində tez-tez varvarizmlərə müraciət etmələri müşahidə olunur. Məsələn, nitqdə belə sözlkər işlənir: obşem, vaabşe, davay, paka, dakazat eləmək, həştad və s. Şifahi nitqdə bu növ varvarizmlərin işlədilməsi məqsədsiz və yersizdir. Buna görə də başqa dilin bu və ya digər sözünü lüzumsuz olaraq dildə işlətmək ancaq və ancaq dili korlamaqdır. Dili qorumaq, onu inkişaf etdirmək üçün ilk növbədə, dilə təsadüfi gələn ünsrülərə qarşı mübarizədən başlamaq lazımdır" (4, səh.268).

Dialektizmlər. Bu vahid termin iki mənada işlədilir. Məhdud ərazidə, yəni Azərbaycan dilinin şivələrində işlənən sözlər və bədii dildə istifadə olunan dialekt sözləridir. Bədii dildə, yəni ki, milli bədii təxəyyülün məhsulu olan əsərlərdə (epik, lirik və dramatik) yaradılmış obrazların dilində bu hal yolverilən dir. Çünki hər bir obraz canlı, təbii, inandırıcı olmalıdır. Ona görə də öz daxili aləminə, xarakterinə, əməllərinə və yaşadığı bölgəyə uyğun bir nitq nümayiş etdirməlidir. Azərbaycan ədəbi dilində isə dialektizmlərin işlədilməsi məqbul hesab edilmir. Səlim Cəfərov göstərmişdir ki: "Ədəbi dilə onun şivələrindən ancaq istər formaca və istərsə mənaca qarşılığı olmayan sözlər daxil edilməlidir. Ədəbi dildə ana sözü olduğu halda *ciyi* və ya *abay* sözlərini, *doğru* sözü olduğu halda, Salyanda bu mənada işlənən *hərrə* sözünü, *zoğ* sözü olduğu halda, bu mənada Cəbrayıl bögəsində işlənən *mov* sözünü, *rəf* sözü olduğu halda, bu mənada Gəncədə işlənən *zeh* sözünü dilimizə gətirməyin heç bir xeyri yoxdur. Ədəbi dildə dialektizm xüsusiyyəti daşıyan bu sözlər onu ağırlaşdırıb korlaya bilər (3, səh.72). Dialekt xüsusiyyətləri özünü təksə dilin leksik səviyyəsində deyil, fonetik (ev-öy, əv; neft-nəfit, nöyüt və s.), qrammatik (gəlir-aler, aladu, ala var, alıy; qapını-qapıyı və s.) yaruslarda da göstərir. Bunlara da diqqət edilib, ədəbi dilin normaları gözlənilsəydi çox yaxşı olardı.

Jarqon leksikası və arqotizm. Arqotizmlər də nitqin təmizliyini pozan ünsürlərdən biri hesab olunur. Dilçilik ədəbiyyatında bu tip sözlər belə ifadə olunmuşdur: "Başqalarının başa düşməməsi üçün süni yaranan, yaxud da ədəbi dildə işlənən sözlərin təhrifi ilə meydana gələn jarqonların leksikasına daxil oaln sözlər arqotizm adlanır. Oğruların, quldur və dustaqların, çoban və aşıqların özünəməxsus jarqonunda xüsusi arqotizmlər işlədilir. ..Jarqon leksikası öz mahiyyəti etibarilə ədəbi dillə və xalq dili ilə heç bir əlaqəsi olmayan sözlərdən ibarət olub əkində bitən yabanı alaq otlarına bənzəyir...Məhz buna görə də, belə bir leksikanın ədəbi dilə gəlməsinə və ayrı-ayrı adamlar tərəfindən jarqon sözlərinin işlədilməsinə qarşı kəskin mübarizə aparılmalıdır"(3, səh.77). Müəllimlərin dilində *pəncərə* "boş dərs" deməkdir. Oğruların dilində *xırdalamaq* "oğurlamaq"deməkdir. Narkomanların dilində *aş içmək* "narkotik qəbul eləmək" deməkdir və s.

Dilçi-alim Şahlar Göytük dilimizdə baş verən bu kimi proseslərə həyəcan təbili çalaraq ictimaiyyətə aşağıdakı kimi səslənmişdir: Bəs bu dili korlayan, sözlərimizə süni şəkildə müsbət və ya mənfi mənalar yükləyən kimlərdir? Niyə "dəhşətli", "qorxunc" mənalarında işlətdiyimiz "müdhiş" sözünü "möhtəşəm" mənasında işlətməliyik? Siz buna təbii proses deyirsiniz? Soruşuram, "peysər" ("boyunun arxası"), "qaşqaldaq" sözlərinə o mənfi mənaları kim yükləyib? Bu xalqın müəllimi, həkimi, yazıçısı, şairi, ziyalısımı? Niyə "xiyar", "badımcan" deyərkən ağla mənfi mənalar gəlməlidir? Niyə "girmək" feilinin yerini tədricən "daxil olmaq" ifadəsi tutmalıdır? Yüzlərlə belə misal gətirə bilərəm. Bu şəkildə məna daralması və genişlənməsi ana dilimizi gözdən salmağa, dilimizi öz kökündən qoparmağa xidmət etmirmi? Şifahi ədəbi dilimizi küçə leksikonunda danışanlar elə sıxışdırıb ki, ünsiyyət zamanı hər dəfə "türkün məsəli" ifadəsini eşidirik?

Vulqarizmlər. Nitqin təmizliyini pozan söz qruplarından biri də vulqarizmlərdir. Bu qrupa kobud, qeyri-etik, ictimaiyyət arasında istifadə olunması məqbul hesab edilməyən sözlər daxildir. Afad Qurbanov vulqar sözləri iki qrupa ayırmışdır:

a) Kobud sözlər. Bu qrup sözlər anlayışın az və ya çox dərəcədə kobud şəkildə ifadə olunmasına xidmət edir. Məsələn, *yemək* əvəzinə *tıxmaq, gumbuldatmaq; çoxdanışan* əvəzinə *heyvərə* sözləri işləndikdə məna kobud ifadə edilmiş olur. Eyni zamanda bunların vasitəsilə haqqında danışılan əşya və ya şəxsə-müraciət oluna şəxsə mənfi münasibət bəslənildiyi bildirilir; məsələn:

İndi, ey heyvərə varınsa hünır,

Söylə, təbirini bilirsən əgər?!(Səməd Vurğun).

b) Söyüş xarakterli sözlər. Vulqarizmdə bu qrup sözlərin ifadə etdikləri mənada söyüş mövcud olur; məsələn:

İtil, cəhənnəm ol, nadürüst! Mən səni tanıyıram, sən nə yuvanın quşusan (Abbas Səhhət).

Gəl bundan sonra nanəcibə yaxşılıq elə. Çörəyini belə adama yedirincə itə tullasan bundan min dəfə yaxşıdır (Əbdürrəhimbəy Haqverdiyev).

Bu misallardakı nadürüst, nanəcib sözləri öz mənalarına görə söyüş xarakterli vulqarizmlərdir (4, səh.261).

İctimai yerlərdə belə sözlərin işlədilməsi heç bir mənada xoş təsir bağışlamır.təhsilin humanistləşdirilməsindən söhbət getdiyi indiki vaxtda xüsusən müəllimlərin nitqində şagird, tələbə və başqalarına qarşı vulqar xarakterli söz və ifadə işlədilməməlidir. Vulqarizmlər dili zibilləyir, onların nitqdən kənarlaşdırılması uğrunda həmişə ciddi iş aparılmalıdır (2, səh.48).

Loru və tüfeyli sözlər. Loru sözlər də vulqarizmlər kimi qeyri-etik söz qrupudur və ictimai yerlərdə istifadə edilməsi məqbul sayılmır.Məs.: qatıqlamaq, hırıldamaq, donquldanmaq, tülkü, dovşan, ayı, anqırmaq və s. "Tüfeyli sözlər mətnlə əlkaqəsi olmayan söz və ifadələrdir. Fikrin ifadəsi zamanı lazımi söz tapmadıqda, yersiz fasilələrdə bunlardan istifadə olunur: demək, deməli, deməli ki, zaddı, şeydir, adı nədir, xülasə, adını sən de, beləliklə, canım sənə desin, əsas etibarilə, öz aramızdır, sən öl, özüm ölüm, qardaş canı, hansı ki, göz dəyməsin və s." (5, səh.347).

Xalqımızın böyük yazıçısı bu barədə gözəl demişdir: "Bəli, dil təmizlik sevir, gözəllik sevir. Bu gözəllikonu bütün təbiəti ilə bağlıdır, necə təmiz, sərin bulaq suyu qayadan qaynayıb çıxır, elə də hər söz insanın ürəyindən gəlməlidir. Dilin bütün daxili gözəlliyini əks etməlidir. Belə olmadıqda dil korlanır, kobudlaşır, mənasına xələl gəlir, daxili gözəlliyini itirir. Dil onu pozan, korlayan hallara isə ciddi müqavimət göstərir, onları rədd edir, insanın bədəni yad ünsürləri rədd edən kimi" (2, səh.48).

**NƏTİCƏ**

Nitqin təmizliyi yalnız insanın ümumi-daxili mədəniyyətinin yox, həm də zövqünün, dili dərketmə, ölçü hissinin göstəricisidir, kommunikativ keyfiyyət olduğu üçün şüurun mənəvi tələbatı və nitqin ədəbi dillə uyğunluğudur (5, səh.350-351). Məqalədə mədəni nitqə verilən əsas tələblərdən olan nitqin təmizliyini pozan amillərdən bəhs olunmuşdur. Bu amillər sırasına, vulqarizmlər, varvarizmlər, dialektizmlər, loru və tüfeyli sözlər, jarqon leksikası və arqotizmlər və s.daxildir. Hər bir amil ayrılıqda izah edilmiş və nümunələr ilə əsaslandırlmışdır. Hesab edirik ki, ətraf mühit qədər nitqimizin təmizliyinin qayğısına qalmağımız da ən vacib məsələlərdən biridir. Müuxtəlif səbəblər, təsirlər ilə əlaqədar olaraq dilimizdə işlədilən artıq amillərə yol verməməyə çalışmalıyıq. Onun təmizliyini qorumaq və olduğu kimi gələcək nəsillərə ərməğan eləmək hər birimizin vətəndaşlıq borcudur.

**ƏDƏBİYYAT SİYAHISI**

1. Abdinova Rahilə, Hüseynova Natəvan. Azərbaycan dili və nitq mədəniyyəti. Dərslik. Bakı, "Elm və təhsil", 2021.
2. Abdullayev Nadir. Nitq mədəniyyətinin əsasları. Bakı, "Elm və təhsil", 2014.
3. Cəfərov Səlim. Müasir Azərbaycan dili, II hissə. Leksika. Bakı, "Şərq-Qərb", 2007.
4. Qurbanov Afad. Müasir Azərbaycan ədəbi dili. I cild, Bakı, "Elm və təhsil", 2010.
5. Məmmədli Nadir. Azərbaycan dilində işgüzar və akademik kommunikasiya. Dərslik. Bakı, "Elm və təhsil", 2021.
6. Nəzəroğlu Cəlalə. Ürəkli danış, səhnə sənindir! Bakı, Qanun nəşriyyatı, 2023.
7. Şiriyev Fikrət. Azərbaycan dilinin nitq mədəniyyəti və kommunikasiya. Dərs vəsaiti. Bakı, "Elm vətəhsil", 2020.
8. Xəlilov Buludxan. Azərbaycan dilində işgüzar və akademik kommunikasiya.Bakı, "Adiloğlu" nəşriyyatı,2021

# XX ƏSRDƏ ÇİNDƏ UYĞUR MAARİFÇİLİYİ

**Günay Novruzova**
AMEA Ak. Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutu
*gunay.tagiyeva91@gmail.com*
Bakı şəhəri. Azərbaycan

**Xülasə**

Məqalə qədim tarixə malik olan türk xalqlardan biri olan uyğurların xıx əsrin sonu xx əsrin əvvəllərində bir çox sahələrində xüsusi ilə ədəbiyyat və maarifçilik sahəsində inqilab baş vermişdir. Uyğurlar memarlıq, yazı, rəsm, musiqi və bir çox mədəniyyət sahələri ilə yanaşı, şəhərləşmə mətbəəçilik və.s sahələrdə göstərdikləri inkişaf Türk mədəniyyəti ilə yanaşı dünya mədəniyyətində də son dərəcə önəmli mövqe tutmuşdur.

XX əsrin başlanğıcında baş verən tarixi, siyasi dəyişikliklər Uyğur ədəbiyyatının və maarifçiliyinin yenidən canlandırmışdır. Bu dövrdə təhsilə xüsusi diqqət ayrılmışdır. "Üsuli-qədim" məktəbləri sıradan çıxmağa başlayır və yerinə "üsuli-cədid" məktəbləri yaradılırdı. Şərqi Türküstanda baş verən mədəni inqilabın əsasını qoyan maarifçi şəxsiyyətlər olmuşdur. Təhsillərini Türkiyə və Misirdə alan maarifçi şəxsiyyətlər Şərqi Türküstana gələrək, elmin, təhsilin inkişafına təkan verirdilər. Müasir dövrün inkişafından gerida qalan uyğurlar son dövrlər xüsusiyilə də xıx əsrin sonu xx əsrin əvvəllərində daha çox inkişaf etməyə başlamış Çağdaş Uyğur ədəbiyyatında 1920-1930-cu illərdə teatr, dram kimi ədəbiyyat janrları meydana gəlmişdir. İnsanların həyatında baş verən hadisələri teatra gətirir və tamaşaya qoyurdular. Qədim Uyğur ədəbiyyatında bəzi nümunələr olan və Çığatay ədəbiyyatı dövründə sıradan çıxan, xıx əsrdə Avropa şeirlərində görülməyə başlayan sərbəst vəznli şeirlər, müasir Uyğur ədəbiyyatında yenidən canlanmağa başlamışdır.

Araşdırılan mövzu qədim türk xalqlarından olan Uygur xalqının xıx əsrin sonu və xx əsrin əvvələrində mübarizə dolu mədəni-ədəbi tarixi inkişaf prosesi göstərilmişdir. Mövzu müasir dövrümüzdə də öz aktuallığı ilə seçilir.

**Açar sözlər:** Çağdaş Uygur ədəbiyyatı, "üsuli-qədim"məktəbləri, "üsuli-cədid" məktəbləri.

**Abstract**

The article says that the Uighurs, one of the Turkic peoples with an ancient history, at the end of the 19th - beginning of the 20th century experienced a revolution in many areas, especially in the area of literature and education. In addition to architecture, writing, painting, music and many areas of culture, the development of Uighurs in the area of urbanization, book printing, etc. d. took an extremely important place both in world culture and in Turkish culture.

Historical and political changes of the beginning of the 20th century revived Uyghur literature and enlightenment. During this period, special attention was paid to education. "Usuli-gadim" schools began to disappear, and instead of them, "modern-type" schools were created. There were enlightened personalities who laid the foundations of the cultural revolution that took place in Eastern Turkestan. Educated persons who received education in Turkey and Egypt came to Eastern Turkestan and contributed to the development of science and education. Uyghurs, lagging behind the development of the modern era, began to develop more recently, especially at the end of the 19th and early 20th centuries. In the 1920s and 1930s. appeared in modern Uyghur literature. They brought the events of people's lives to the theater and performed them. Verses of free verse, which have examples in ancient Uyghur literature and disappeared during the period of Chigatai literature, began to appear in European poetry of the 19th century and began to revive in modern Uyghur literature.

The research topic shows the cultural and literary historical process of the development of the Uyghur people, one of the ancient Turkic peoples, in the late 19th and early 20th centuries. The topic stands out for its relevance even in our time.

**Key words:** Contemporary Uyghur literature, "Usuli-gadim" schools, "modern-type" schools

## Giriş

Məqalənin məqsədi ölkəmizdə elmi ədəbiyyatda Çin uyğurlarının elm, mətbuat və ədəbiyyatı ilə bağlı tədqiqatların azlığı və ya mövzunun qismən araşdırılması ilə əlaqədar olaraq bu mövzuya hər

tərəfli yanaşan tədqiqatımız yenilik hesab oluna bilər. Araşdırmamızın digər mühüm xüsusiyyəti isə uyğur maarifçiliyi məsələsinə fərqli yanaşma əks etdirilməsidir. Tədqiqatın aparılmasında məqsəd son zamanlar uyğur məsələsinə siyasi baxımdan yanaşılması ilə əlaqədar olaraq, bir çox tədqiqatlar Çin ərazisində yaşayan bir xalqın elm və maarifçilik məsələlərini zəif işıqlandırıldığına görə tədqiqatlarda yaranan boşluğu doldurmaqdır. Müəllifin qarşısında duran əsas vəzifə problemi tarixi və elmi baxımdan işıqlandırmaqdır. Mövzu xarici tədqiqatçıların elmi əsərlərində, məqalələırində öz əksini tapmışdır. Bunun üçün əsasən məqalələr ingilis və türk müəlliflərinin məqalələrindən istifadə edilib. Mövzu tarixi ədəbi baxımdan öz aktuallığı ilə seçilir. Tədqiqat işinin sturturu giriş, iki fəsil, tədqiqat metodu, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısı daxildi.

**XX əsrin əvvəlləri Uyğur xalqının "Mədəni İnqilab" dövrü**

Qədim tarixə malik olan Türk xalqlarından biri də Uyğurlardır. Onlar memarlıq, yazı, rəsm, musiqi və bir çox mədəniyyət sahələri ilə yanaşı, şəhərləşmə, mətbəəçilik və.s sahələrdə göstərdikləri inkişaf Türk mədəniyyəti ilə yanaşı dünya mədəniyyətində də son dərəcə önəmli mövqe tutmuşdur. Uyğurlar haqqında mənbələrdə saylarının çox olmadığını ancaq buna rəğmən nizam –intizamları ilə seçildiklərini, cəsur xalq kimi tanındıqlarını qeyd edirlər. Uyğur millətinin istər sosial, istər iqtisadi, istərsə də mədəni həyatlarında özlərinə məxsus qayda-qanunları və eyni zamanda xarici təhlükəyə qarşı startegiyaları vardır.

XI əsrdə Yusif Xas Hacib tərəfindən qələmə alınmış "Qutadqu Bilik" əsərində döyüş qabiliyyətini itirmiş uyğurlar bu dövrdə buddizmi tətbiq etməyə başlamış və beləliklə, böyük bir ədəbiyyatın əsasını qoymuşlar. Uyğurların sivilizasiya və mədəniyyət baxımından çox irəlilədiklərini də xüsusi ilə qeyd edir "Uyğurlar astrologiya, mədənçilik, toxuculuq, memarlıq, riyaziyyat, təhsil, oxumaq, yazmaq, tibb və s. kimi elmləri bilirlərdi. İpək, taxta və metal üzərində çalışan dekorativ sənətlərin ustası idilər, qızıl, gümüş, bürünc və gildən hekəllər hazırlayırdılar." Uyğurların əsasını qoyduqları ədəbi irs Türküstanda formalaşmış və Volqa-Ural, İran, Kiçik Asiya, Anadolu və Misir kimi bölgələrdə yayılıb inkişaf etməyə başladı. Daha sonra bu inkişaf dayanmamış, Türk –İslam mədəniyyətidə bu ərazilərdə hökm sürməyə başlamışdır.

Uygurlar tarixin müxtəlif dövrlərində zərbələrə məruz qalmalarına baxmayaraq daim mübarizliyi ilə seçilən türk xalqlarından biri olmuşlar.

xx əsrin başlanğıcında baş verən tarixi, siyasi dəyişikliklər Uyğur ədəbi mühitin inkişafına zəmin yaratmışdır. Bu mərhələdə təkcə siyasi deyil, eyni zamanda iqtisadi canlanmada özünü bariz şəkildə göstərmişdir. 1978-1980-cı illərə qədər mövcüd olan nəşriyyat sahəsi genişlənməyə başlamışdır. Uyğur ədəbi mühiti üçün yeni perspektivlər yaranmağa başladı. Bir çox ədəbi jurnallar və məcmuələr təsis edilərək, ədəbi əsərlərin nəşr edilməsinə şərait yaradılmışdır. "Mədəni İnqilab"dan sonra bir çox yazıçıların həyatında mühüm dönüş nöqtəsi olmuşdur. Uyğur ədəbiyyatında roman ön plana çıxmışdır. Bu dövrün önəmli təmsilçilərindən olan Zordun Sabir, Əhət Turdi, Memtimin Hoşur, Xalidə İsrail, Məhəmməd Bagraş, Əhtəm Ömər, Calalidin Behram kimi yazıçıların adlarını sıralaya bilərik.

Müasir dövrün inkişafından gerida qalan uyğurlar son dövrlər xüsusiyilə də xıx əsrın sonu xx əsrin əvvəllərində daha çox inkişaf etməyə başlamış və bu yenilikləri Şərqi Türküstana gətirən maarifçi şəxsiyyətlər olmuşdur. Dövrünün varlı uyğurlarından olan, təhsilini xaricdə alan Hüseyn Musabayub və Bahavudun Musabayub qardaşları uyğurlar üçün yeni məktəblər təsis etmişlər. Türkiyədə təhsil almış uyğur əsilli Əbubərki Şərqi Türküstana dəvət etmişlər. Daha sonra uyğurlar xaricdə təhsil alıb, xüsusiyilə Türkiyə və Misirdə oxumuş şəxsiyyətlər Şərqi Türküstanda gəlmiş və burada yeni üslublu silsilə məktəblər açmışlar. 1889-cu ildə İlidə "Hüseyniyye Mektibi", 1905-də "Hüner Kesip Mektipi" təsis edilmişdir. Bu məktəblərin təsiri ilə Turpan, Piçan, Guçun, Qumul, Gulca, Aksu, Kuça, Kutubi, Kaşğar, Kağılık, Xotan, Astın Atuş kimi şəhər və qəsəbələrdə cədid məktəbləri açılmışdır. Turpan Astaneli Məsud Muhiti, 1913-cü ildə Tatar maarifçisi Heydər Əfəndi Sayraniyi, 1917-ci ildə Güləndam Avistey dövründə altı Tatar maarifçisini Şərqi Türküstana gətirmişdir. Turpan, Guçun, Urumçi, Çöçək kimi şəhərlərdə yeni məktəblər açılmışdır. Ziya Göyalp, Talat Paşa dövrün önəmli siyasətçilərinın göndərdiyi Həbibzadə Əhməd Kamal 1914-cü ildə Kaşğara gəlib və uyğurlara müasir təhsil verən məktəblərin açılmasında köməklik göstərmiş və xalqı oyatmağa mübarizəyə təşviq etmişlər. Yeni üslublu məktəblərdən savadlı istedadlı şəxsiyyətlər çıxmışdır. Memtilli Əfəndi kimi şairlər bu məktəblərin yetirməsidir.

XX əsrin əvvələrində Türkiyəyə təhsil məqsədi ilə göndərilən gənclərdən Dursun Əfəndi, Dr.Məsud Sabrı Baykuzu, Abdulrahman Şadı, Həsən, Əhməd Nəjati, Kamal Bədri 1914-cü ilin qışı

Kaşğara geri qayıdıb və Əksakdakı cədid məktəbində müəllimlik fəaliyyətinə başladı. Cədid məktəbləri ilə "Üsuli-qədim" məktəblər arasında böyük bir fərq var idi. "Üsuli qədim" məktəblərində ancaq Ərəb dili və din üzərindən dərslər keçirilirdi. Yeni təsis olunmuş cədid məktəblərində isə elmin demək olar ki, bütün sahələrinə yer vermişdilər. Burada tarix, coğrafiya, idman, riyaziyyat, katiblik kimi elmlər öyrədilirdi.

İsmayil Qaspiralının Krımda başlatdığı "üsuli-cedid" məktəbləri, daha sonrakı dövrlərdə, türk dünyasındakı bütün islahatçıların ilham mənbəyi olmuşdur. Qaspiralının "dildə, fikirdə, işdə birlik" devizi ilə Türk dünyasını birləşdirməyi siyasi məqsəd qoymuş və bu siyasəti axın halına gətirmişdir. Bu dövrdə müxtəlif vasitələrlə türk ideologiyasını işıqlandırmağa çalışmışlar. Türklərin nəşr etdirdiyi kitab, məcmuə, qəzet və jurnallar Şərqi Türkustana çatdırılmışdır. Xüsusiyilə, Qaspiralının 1883-cü ildə başlatdığı "Tərcüman" qəzeti, "Şura" və "Til Yariş" kimi çap etdirdiyi məcmua və jurnalların müstəsna rolu olmuşdur. Şərqi Türküstandakı Uyğur xalqını cəhalətə və əsarətə qarşı savadlandırmaq məqsədi ilə bu hərakatların mühüm rolu olmuş və eyni zamanda cədidçi fikir və görüşlər xalq tərəfindən mənimsənilmiş və dəstəktənmişdir.

1929-cu ildə Kaşğara gedən Gunnar Yarrıng, Kaşğarda qəzət və mətbəənin olmadığını, katiblərin hələdə əl yazısı əsərlərini, əl yazısı ilə nüsxələndiyini , bu əsərlərində dini əsərlər olduğunu qeyd etmişdir.

Burhan Şəhidi XX əsrin başlanğıcında Şərqi Türküstanda mətbəə və qəzetin olmadığını qeyd etmişdir. Ancaq Burhan Şəhidi zənn etdiyi, mətbəə və qəzet dövlət qurumuna aid mətbəə və qəzetdir. Buna baxmayaraq Şərqi Türküstanda ilk toxumlar artıq cücərmişdi. 1899-cu ildə Uyğur maarifçilər və varlılar tərəfindən "Matbaa-yı- Hurşıd" ("Nur mətbəəsi") fəaliyyətə başlamışdır. 1905-ci ildə Kaşğarda qurulan "Şivit" mətbəəsi "Sultan Satuk Buğraxan" və "Dünya coğrafiyası" adlı iki kitab işıq üzü görmüşdür. 1910-ci ildə Kaşğarda Yenihisarli Nur Hacı tərəfindən "Matbaa-yı Nur" adlı bir daş basqı (litoqrafiya) mətbəəsi təsis edilərək bir çox kitab nəşr edilmişdir. 1920-ci ildə Gulca Kürədə bir-bir daş basqı daha təsis edilərək bir çox ədəbi kitablar nəşr edilməsinə nail olunmuşdur. Bundan başqa ələk basqı (serigrafi) da zaman-zaman istifadə edilmişdir. 1915-ci ildə Kaşğarda cedid məktəblərinin dərs kitabları və xalqın İslam dinini doğru şəkildə öyrənməsi üçün hazırlanan "Ulu din risaləsi" adlı kitab nəşr edilmişdir. 1917-ci ildə Urumçidə həbsdəki Əhməd Kamal tərəfindən hazırlanaraq, xaricdə Burhan Şehidi tərəfindən nəşr edilən altı ay davam edən "Yeni Həyat" qəzeti, daha sonra bu qəzet bağlandıqdan sonra Burhan Şəhidi tərəfindən nəşr edilən iki ay həyat yaşıyan "Turan" qəzeti ələk basqısından istifadə edilmişdir. 1911-ci də Kaşğarda maarifçi Qutluq Şövqü tərəfindən "An" (Fikir) qəzetı, 1922-ci ildə İlidə "İli Dehqanliri" (İli Kəndliləri), 1930-cu ildə illərdə Kaşğarda "Keşqer Şincan Geziti" (Kaşğar Şincan qəzeti), 1934-cü ildə Ürümçidə "Şincan Uyğurliri Geziti" (Şincan Uyğurları qəzeti), 1924-cü ildə "Şincan Geziti" (Şincan qəzeti), "İli Şincan Geziti" (İli Şincan qəzeti), 1930-cu illərdə "Çöçək Uçurliri Şincan Geziti" (Çöçək Xəbərləri Şincan qəzeti), "İnqilabçil Yaşlar Geziti" (İnqilabçı gənclər qəzeti), 1939-cu ildə Xotanda "Şincan Geziti" (Şincan Qəzeti), 1936-cı ildə Aksuda "Aqsu Uçuri" (Aksu xəbəri), Gulcada "Alğa" (İleri) qəzeti nəşr edilmişdir. Bundan başqa son zamanlarda, Uyğur maarifçiləri əməyi və fədakarlığı ilə nəşr edilən "Yeni Hayat" (Yeni Həyat) qəzeti, "Şərqi Türkistan Hayatı" (Şərqi Türkistan Həyatı), "Erkin Türkistan" (Müstəqil Türkistan). "Şincan Geziti" (Şincan qəzeti) "İnqilabi Şerqi Türkistan" (İnqilabi Şərqi Türkistan) "Erk Geziti" (Hürriyət qəzeti) kimi qəzetlər də nəşr edilmişdir.

Bu cür qəzetlərin nəşr edilməsi, Müasir Uyğur ədəbiyyatının inkişafında mühüm rol oynamışdır. "Şincan geziti" nin 243-246 nömrələrində "Türk Edebiyyatı Tarihi" başlıqlı məqalə nəşr edilmişdir. "İnqilabi Şerqi Türkistan"ın Ösüş (yetişmək) başlığında ədəbi əsərlər yer almışdır. "Cahangirlikke Qarşı Birliksep Jurnalı" (İmperyalizme Qarşı Birlik jurnalı), "Xelq Birlik Sepi Jurnalı" (Xalq Birliyi Jurnalı), "Yeni Şincan Jurnalı" (Yeni Şincan jurnalı), "Jenuptin Avaz Jurnalı"(Cənubdan səs jurnalı), "Xantenri Jurnalı" (Xan Tanrı jurnalı), "Şincan Medeniyəti Jurnalı" (Şincan Mədəniyyəti jurnalı), "Çin-i Türkistan Dergisi" (Çin-Türkistan jurnalı), "İttipaq Jurnalı" (İttifaq jurnalı), "Hayat Mucellisi Jurnalı" (Həyat kitabcası jurnalı), "Altay" jurnalı, "Dunya Edibiyatidin Qisqartmilar Jurnalı" (Dünya Ədəbiyyatından sitatlar jurnalı), "İslam Yaşliri Jurnalı" (İslam Gəncləri jurnalı), "Xelq Avazı"(Xalq Səsi) jurnalı, "Xelkçiliq" (Xalqçılıq), "Köreş" (Mücadilə), "Hayat" (Həyat) kimi jurnallar nəşr edilmişdir.

Çağdaş Uyğur ədəbiyyatında 1920-1930-cu illərdə teatr, dram kimi ədəbiyyat janrları meydana gəlmişdir. Qədim Uyğur ədəbiyyatında bəzi nümunələr olan və Çığatay ədəbiyyatı dövründə sıradan

çıxan, XIX əsrdə Avropa şeirlərində görülməyə başlayan sərbəst vəznli şeirlər, Müasir Uyğur ədəbiyyatında yenidən canlanmağa başlamışdır.

1934-1937-ci illər arasında Şərqi Türküstanda inkişaf mərhələsinə qədəm qoymuşdur. Bu inkişaf təhsil, kənd təssərrüfatı, ticarət və sənayə sahələrində özünü göstərmişdir. təhsildə islahatlar, bu dövrdə şəhərdən kəndə qədər hər yana yayılmış vətənpərvərlik ruhunda yazılan şeirlər və teatr sahəsindəki inkişaf xüsusiyilə ön plana keçmişdir. 1940-ci ildən əvvəl Şərqi Türküstanda dörd ictimai mədəniyyət sarayı, iki yüz on doqquz kitabxana, altmış altı ictimai oxuma salonu, səksən doqquz klub, üç kinoteatr, otuz bir teatr salonu, on altı idman meydanı, iyirmi iki ictimai parkı, iki yüz doxsan təhsil islahat sahəsi, yeddi qəzet nəşriyyat evi təsis edilmişdir. Bu dövrdə Çin-Rusiya mədəniyyət cəmiyyəti qurulmuşdur. Eyni zamanda, rusların müstəmləkəsi altında olan bütün Özbək, Qazax və Tatar ədəbiyyatını yaxından izləmək imkanı qazanmışlar. Rus yazıçılarından Tolstoy, Çexov, Puşkin, Qoqol, Belinski, Turgenovun əsərlərini və Maksim Qorkinin "Ana", Serafimoviçin "Dəmir axın" romanları, Mayakoviskinin "Viladimir İliç Lenin" dastanı, Özbək yazıçılarından Hemze Həkimzadə Niyazi, Xurşud Rəşidin teatr əsərləri, Qazax şairi Cambulun şeirləri, Abayın fikir və düşüncələrinin məhsulu olan "Xalq sözləri", Abdulla Tokanın şeirləri, Tacik yazıçısı Sədirdin Eyninin "Qullar" adlı romanı uyğur cəmiyyətində sevilərək oxunmuşdur. Şərqi Türküstandakı uyğurlar və Uyğur ədəbiyyatı bu əsərlərdən bəhrələnmişdir. Xüsusiylə Rusiya Uyğur ədəbiyyatının təmsilçiləri olan Nəzər Xoca Abdulsemedov, Hebib Zakiri, Abdulhey Məhəmmədi, Ömər Məhəmmədi kimi yazıçıların əsərlərində dərin izlər buraxmışdır. Uyğur ədəbiyyatının mövzusundan növünə qədər yenilənmə və inkişaf meydana gəlmişdir.

1934-cü ildən başlayaraq Şərqi Türküstanın demək olar ki, hər bölgəsində təhsil islahatları keçirirdilər. Bu islahatlar özlüyündən Uyğur mədəniyyətinin sürətli inkişafına təkan verdi. Mədəniyyət və maarifçiliyi inkişafı ilə yanaşı ədəbiyyat və sənət xidmətlərinidə ön plana çıxarmışdır. Uyğur mədəniyyətində teatrın inkişafı nəticəsində yeni kadrlar formalaşdı və həmin şəxslər istər xarici istərsədə yerli sənətkarların əsərlərini səhnələşdirirdilər. Bu dövrdə teatr əsərləridə daha çox yazılmağa başladı. Abdulla Rozi (1919-1945) "Tümür Aka gəldi" (Teymur Ağa Gəldi), "Ögey Ana" kimi Uyğur ədəbiyyatında teatr əsərləri meydana gəldi.

1934-cü ilin Mömin Əfəndinin "Boz iğidim" dram janrında qələmə alması və səhnəyə qoyulması teatr sənətinin inkişafında mühüm rol oynamışdır. Himit Hekimin "Anargül", Ziya Səmədinin "Qanliq Dağ" (Qanlı ləkə), Zunun Kadirinin "Ğunçəm" (Qönçəm), Qasımcan Kəmbirinin "Zeynəpkə töhmət"(Zeynəbə şər), Lupulla Mutellipin "Çiməngül" (Çəməngül), "Samsaq Akan Qaynaydu" (Samsak Ağabəyim qaynayırdı), Şükür Yalkunun "Şanhey Keçisi" (Şanghay gecəsi) kimi əsərlər öndə gələnlərdən idi. Bu əsərlər içərisində "Ğunçem" 1990-cı illərə qədər səhnədə ifa olunurdu.

Müasir Uyğur ədəbiyyatına yeni janrlar formalaşmağa başlayırdı. 1938-ci ildə Uyğur ədəbiyyatında hekayə janrı formalaşdı. Hekayə janrına müraciət edən yazıçı Seypidin Əzizinin "Yetim Toxti" (Yetim Durdu), "Zamanqul"(Zamanqul), "Menzirə" (Mənzərə), "Aççiq Xatirə" (Acı xatirə) kimi əsərləri qələmə almışdır.

1943-cü ildə ədəbi mühitdə durğunluq yarandı. Ancaq cümhüriyyət dövründə yenidən mədəniyətin bir çox sahələri ədəbiyyat, teatr, mətbəəçilik daha da inkişaf etməyə başladı. Ədəbi ruhlu şəxsiyyətlər incəsənətin və mədəniyyətin sıradan çıxmasına heç zaman biganə qalmamışlar. Əsərlərində daim xalqı oyanışa, mübarizəyə, mədəniyyətə, birliyə səsləmişlər. Ziya Səmədi, Zunun Kadiri, Nimşəhid kimi sənətkarlar daim xalqın görən gözü, səsi olmuşlar.

1945-ci ildə Cang Cieşının radioda "Məsələyi Barışcıl Yollarla çözmə "nitqindən sonra, 1946-cı ildə Milliyətçi Çin Hökuməti ilə on bir maddədən ibarət razılaşma imzalandı. Koalisya Hökuməti quruldu, vilayət və qəsəbələrin idarəsi demokratikləşdi, eyni zamanda Urumçidə nəşriyyat evləri, sivil cəmiyyətə aid qəzet və jurnalların dərc edilməyə başladı.

Həmin dövrün mədəni və ədəbi həyatını çap olunmuş jurnal və məcmuələrdən öyrənmək mümkün olmuşdur. Urumçidə nəşr edilən "Şincan Geziti", "Oyğan"(Oyan), "Yalqun"(Alov) qəzetləri, "Həqiqət Geziti"(Həqiqət qəzeti).

**Tədqiqat metodu**

xıx əsrin sonu xx əsrin əvvələrində Uyğur xalqının mübarizlıyi sayəsində dil, təhsil barədə bəzi irəliləyişlər əldə etmişlər. Bu inkişaf ədəbiyyat, mədəniyyət və incəsənətdə öz bəhrəsini vermişdir

Məqalədə, xx əsrin sonları xx əsrin başlanğıcında baş verən tarixi, siyasi dəyişikliklər Uyğur ədəbiyyatını yenidən canlandırmışdır. Bu dövrdə Çinin "Mədəniyyət İnqilabı" siyasəti Çağdaş Uyğur

ədəbiyyatını sözün əsl mənasında yenidən dirçəlişinə şərait yaratmışdır. Bu siyasət Şərqi Türküstan və Uyğurlara istiqamətlənmiş yumşalmalar özün ilə bərabərlik, demokratiya gətirmişdir.

**Nəticə**

Uyğurların inkişaf etdirdiyi yazı dili və ədəbiyyatı bir çox türk boyunun dillərinə əsaslanan ədəbi dilin və ədəbiyyatının formalaşdırılması və inkişaf etdirilməsində əhəmiyyətli rol oynamışdır. Mədəniyyət və ədəbiyyatları çox zəngin olan uyğurlar türk dünyası ilə yanaşı Çin mədəniyyətinə, dilinə və ədəbiyyatınada böyük təsiri olmuşdur. Uyğurlar Mərkəzi Asiyada (Türküstanda) türk mədəniyyətinin bərqərar olmasında və inkişaf etməsində əvəzsiz rol oyanmışlar: Beşinci əsrdən başlayaraq əvvəllər öz boyları, daha sonra onlara qoşulan digər türk boyları ilə birlikdə siyasi ittifaq quran uyğurlar Mərkəzi Asiyada türk dili və mədəniyyətinin inkişafında və yayılmasında çox əhəmiyyətli rol oynamışlar. Uyğur türkləri çoxəsirlik tarixlərində, öz əməklərinin, ağıllarının, duyğularının və dünyagörüşlərinin bir ifadəsi olaraq ədəbiyyat və sənət dəyəri yüksək əsərlər ortaya qoymuşlar.

**Ədəbiyyat**

1. Kasapoğlu Çengel Hülya. Uyğur Türklerinin Edebiyyatı. Türk Dünyası Edebiyyatları, istanbul Milli Eğitim Bakanlığı yayımları.1998.595-641
2. Kasapoğlu Çengel Hülya. Çağdaş Türk Edebiyyatları-II. Çağdaş Uyğur Edebiyyatı. (Ünite-6). T.C. Anadolu Universiteti Yayımı No:2753.Açıköğretim Fakültesi Yayını No:1711. 2013.s. 140-170
3. Kasapoğlu Çengel Hülya. Abdurrehim Ötkürün Şiirleri İnceleme-Metin-Aktarma, İstanbul. Milli Eğitim Bakanlığı Yayımları.2000
4. Raile Abdulvahid Kaşğarlı. Çağdaş Uyğur edebiyyatı ve onun geleceyi. Uluslararası Uyğur Dergisi. 2014.s.129-145
5. Raile Abdulvahid kaşğarlı. Çağdaş Uyğur şairlerinden Memtili Tefiq Efendının Hayatı və Eserleri.
6. Saadethin Yağmur.Uyğur Türlerinin Destanlarındakı Tarihi Gerçekler. Uyğur Akademisi .2021.
7. Turan , Şekür . Uygur Türkleri Edebiyyatları, Türk Dünyası El Kitabi, Edebiyyat Türkiye Dışı Türk Edebiyyatları, Ankara Türk Kültürünü Araştırma Enstitüsü,1998.s. 213-228.

# HÜQUQ

## NEQATİV HÜQUQ MÜHİTİNDƏ BİR PARÇA POZİTİVLİK AXTARIŞI

**CƏBRAYILZADƏ MƏSUMƏ BƏHRUZ QIZI**
Azərbaycan Dövlət Gömrük Komitəsinin Akademiyasının
Hüquqşünaslıq ixtisası üzrə I kurs tələbəsi
*e-mail : mesume.cebrayilzade@ascca.edu.az*

**MƏMMƏDRZALI ŞAHİN SABİR OĞLU**
Azərbaycan Dövlət Gömrük Akademiyasının
"Hüquq və humanitar elmlər" kafedrasının müəllimi, h.ü.f.d.
*e-mail: shahinmammadrzali@bsu.edu.az*
BAKI, AZƏRBAYCAN

**XÜLASƏ**

Hüququn meydana gəlməsi, hüququn tətbiqi və bütövlükdə hüququn ümumi xarakteristikası ilə bağlı müxtəlif nəzəriyyələrin mövcud olduğunu bilirik. Bu nəzəriyyələr arasında təbii hüquq nəzəriyyəsi ilə pozitiv hüquq nəzəriyyəsinin daim bir-biri ilə ziddiyyətdə olduğunu deyə bilərik. Təbii hüquq nəzəriyyəsi dövlət və qeyri-dövlət subyektlərinin üzərinə bir sıra neqativ öhdəliklər qoyur və dövlət qurumlarının hüquqa ciddi müdaxiləsini dəstəkləmir. Digər sözlə, təbii hüquq hüquq sistemində dövlətin fəaliyyətinin məhdudlaşdırılmasını təbliğ edir. Lakin dövlətin hüquq sistemində fəal iştirakının olmadığı halda biz görürük ki, hüquq özbaşına düzgün istiqamətdə inkişaf edə bilmir, daim dövlət qurumlarının müdaxiləsinə ehtiyac yaranır. Bu baxımdan pozitiv hüquq nəzəriyyəsinin vacibliyi və mühümlüyü önə çıxmış olur. Pozitiv hüquq nəzəriyyəsinin realizəsinin həm milli, həm də beynəlxalq hüquq miqyasında xeyli nümunələri vardır. Hal-hazırda nə milli hüquqda, nə də beynəlxalq hüquqda dövlətlərin, beynəlxalq təşkilatların iştirakı olmadan hüququn keyfiyyətli realizəsi barədə danışmaq mümkünsüzdür. Bununla belə, pozitiv hüquq formal ədaləti, formal ədalət mühakiməsini dəstəkləyərək, sosial ədalət və həqiqi, təbii ədalət ideyalarını zəiflədir. Bu mənada pozitiv hüquq özünün əsl "pozitiv" xasiyyətini itirir, insanlarda hüquqla bağlı mənfi, neqativ fikirlərin meydana gəlməsinə səbəb olur. Çünki pozitiv hüquq nəzəriyyəsi bir çox hallarda həqiqətən haqlı olanı deyil, qanunvericilik baxımından daha haqlı olanı qalib elan edir. Belə hallar bir sıra milli və beynəlxalq məhkəmə presedentləri ilə də sübut olunur. Bəzən ən səs-küylü məhkəmə işlərində belə şahidi oluruq ki, hüquq pozuntusu və pozuntunu törədən məlum olsa da, sübutlar yetərli olmur və ya müxtəlif hüquqi metodikalarla hüquq pozuntusu törədən şəxsə lazımi ciddilikdə cəza verilmir. Belə hallar isə cəmiyyətdə hüquqa baxışı "neqativləşdirir", insanlar "pozitiv" ruhda olan hüququ axtarırlar.

**AÇAR SÖZLƏR:** hüquq, ədalət, nəzəriyyə, hüquq düşüncəsi, hüquq mədəniyyəti, sosial ədalət, məhkəmə, cəza, hüquq pozuntusu.

**ABSTRACT**

We know that there are different theories about the origin of law, the application of law and the general characteristics of law as a whole. Among these theories, we can say that the theory of natural law and the theory of positive law are always in conflict with each other. The theory of natural law imposes a number of negative obligations on state and non-state subjects and does not support the serious intervention of state institutions in the law. In other words, natural law promotes the limitation of state activity in the legal system. However, in the absence of the active participation of the state in the legal system, we see that the law cannot develop in the right direction on its own, and there is a constant need for the intervention of state institutions. From this point of view, the importance and use of the theory of positive law comes to the fore. There are many examples of the realization of the theory of positive law both at the national and international level. Currently, it is impossible to talk about the quality realization of law without the participation of states and international organizations, neither in national law nor in international law. However, positive law favors formal justice, formal adjudication, and undermines the ideas of social justice and true, natural justice. In this sense, positive law loses its true "positive" character, causing

people to have negative, bad ideas about law. Because the theory of positive law in many cases declares the winner not the one who is really right, but the one who is more right in terms of legislation. Such cases are proven by a number of national and international court precedents. Sometimes, in the most uproarious court cases, we witness that even though the violation and the person who committed the violation are known, the evidence is not sufficient, or the person who committed the violation is not punished with the necessary severity via various legal methods. Such cases cause "negative" view of law in society, people are looking for law in a "positive" spirit.

**KEYWORDS:** law, justice, theory, legal thought, legal culture, social justice, court, punishment, legal violation.

**GIRIŞ**

Hüquqa müxtəlif yanaşmalar onun mənşəyi ilə bağlı fərqli və çoxsaylı fikirlərin ortaya çıxmasına səbəb olmuşdur. Əsasən, bu fikirlər hüququn meydana gəlməsi, hansı iradəni və kimlərin iradəsini özündə əks etdirməsi, keyfiyyətli hüquqi tətbiqin metodikaları, hüququn inkişaf və təfsir istiqamətləri, bütövlükdə hüquq ilə cəmiyyət arasındakı qarşılıqlı əlaqələrin izahı ilə bağlı olmuşdur. Hüququn meydana gəlməsi, tarixi inkişafı və dövlətin hüquqa təsir baxımından hüquq haqqındakı düşüncələri 2 istiqamətə ayırmaq mümündür: "hüququ şüurlu iradənin məhsulu hesab edən" elmi-hüquqi baxışlar və hüququ "qeyri-iradə məhsulu" hesab edən konsepsiyalar. Hər iki düşüncənin özünəməxsus tərkib elementləri də mövcuddur.

Belə ki, hüququ şüurlu iradə məhsulu hesab edən nəzəriyyələrə ilahi iradə nəzəriyyəsini ,pozitivizm nəzəriyyəsini və ümumi iradə və ya ictimai müqavilə nəzəriyyəsini misal gətirmək mümkündür. Hüququ şüurlu iradənin məhsulu hesab etməyən konsepsiyalar isə əsasən təbii hüquq nəzəriyyəsi, tarixi hüquq nəzəriyyəsi, sosioloji hüquq nəzəriyyəsidir. Hüququ şüurlu iradənin məhsulu hesab edən nəzəriyyələri təbliğ edən və ona tərəfdar çıxan tədqiqatçı alimlərin və bu baxışın nümayəndələrinə görə, hüquq şüurlu iradənin məhsuludur. Yəni ki, hüquq bir varlıq tərəfindən öncədən düşünülmüşdür və meydana gətirilmişdir. Lakin bu fikirdə olanlar arasında qanunun hansı iradənin məhsulu olması ilə bağlı mövqe ayrılıqları vardır. Bəzi alimlərin fikirlərinə istinadən, hüquq tanrının iradəsinin məhsulu, bəzilərinə görə suveren bir şəxsin istəyi, bəzilərinə görə isə cəmiyyətin iradəsinin məhsuludur. Bu cür fikirlər hüquq fəlsəfəsində "hüquqi iradəçilik" (volontarisme juridique) başlığı altında araşdırılır" (Gözler,2018).

Bununla belə, etiraf etmək lazımdır ki, hər iki istiqamətdən olan hüquq nəzəriyyələrinin realizəsində və tətbiqində ciddi problemlər meydana çıxır. Bir sıra hallarda hüququn tətbiqi qanunvericilikdə yazılan məfhumlardan kənara çıxır və yeni praktiki çətinliklər meydana gəlir. Məsələn, cinayət hüququ və cinayət prosesi baxımından ədalət mühakiməsi mürəkkəb kargüzarlıq işi ilə müşaiyət olunur, əksər hallarda zərərçəkmiş şəxslər belə baş vermiş cinayət əməlinin faktları ilə bağlı lazımi bütün sübutları təqdim edə bilmir, bu boşluqdan isə cinayət törətmiş şəxslər "istifadə edir", müxtəlif yollarla ədalət mühakiməsindən yayınırlar. Digər bir nümunəni isə mülki hüquq nöqteyi-nəzərindən vermək mümkündür. Belə ki, bir sıra hallarda bağışlama və borc məsələləri müvafiq yazılı müqavilələr imzalanmadan, adi şifahi danışıqlar yolu ilə həyata keçirilir, daha sonra isə mülki hüquq münasibətlərinin hər hansı tərəfinin hüquqları pozulduqda (borc məbləği vaxtında geri ödənmədikdə, bağışlanan əşya sonradan alınıb satıldıqda) mənəvi və maddi zərərin sübuta yetirilməsində çətinliklər yaranır. Digər sözlə, hüququn ədalət mühakiməsi funksiyası kifayət qədər formal tələblərə söykənir, bu tələblər ödənmədikdə isə əslində haqlı olan tərəf belə öz hüquqlarının bərpasına nail ola bilmir. Bu kimi praktiki problemlər hüququn mənşəyinə dair nəzəriyyələrin yenidən nəzərdən keçirilməsinə bizi sövq edir.

**TƏDQIQAT METODU**

Tədqiqat problemi kimi təbii hüquq və pozitivizm arasında müqayisələrin aparılması, pozitivizm nəzəriyyəsinin üstün praktiki mövqeyini və boşluqlarını təyin etmək üçün, fikrimizcə, müqayisəli metod, analiz və sintez, tarixi analiz kimi ümumi-elmi metodlardan istifadə etmək daha uyğun olmuşdur. Tədqiqatın aparılmasında həm yerli, həm də xarici nəzəriyyəçilərin aparıcı kitablarından və məqalələrindən istifadə edilmişdir.

**Pozitiv hüququn yaranma tarixi və səbəbləri.** Müsbət hüquq kimi tanınan pozitiv hüquq müəyyən vaxt ərzində qüvvədə olan hüquqi qaydalar toplusu kimi müəyyənləşə bilər. Pozitiv hüquq ölkənin idarə olunmasında və qanunların icrasında mühüm rol oynayır. Hüquqi pozitivizmin meydana

gəlməsi XIX əsrin birinci yarısında Qərbi Avropa ölkələrində sənaye kapitalizminin bərqərar olunması ilə əlaqədardır.Vahid milli bazarın formalaşması üçün bütün ölkə üçün vahid olan hüquq qaydasının bərqərar edilməsini tələb edirdi. Bu isə,öz növbəsində,dəqiq və aydın tərzdə ifadə olunan,rəsmi aktlarda əks edilmiş vahid və məcburi hüquqi müddəaların tətbiqini və qanunvericilik qaydasında nizamlanan ictimai münasibətlər dairəsinin genişləndirilməsini tələb edirdi. Elə bu zəmində təbii hüquq nəzəriyyəsinin tam əksi olan hüquqi pozitivizmin əsası İngiltərədə filosof Ceremi Bentamın davamçıları olan *utilitaristlər* qoymuşdur. Onlar fikirləşirdilər ki,insan davranışının hərəkətvericisi faydalılıq prinsipidir. Pozitiv hüquq nəzəriyyəsinin nümayəndələrindən biri də ingilis hüquqşünas Con Austindir. O öz əsərlərində hüquqşünaslığın predmetinin pozitiv hüquq olduğunu vurğulayır. O, hüquq elmini digər elm sahələrindən ayırmağa çalışıb.Onun fikrinə görə hüquqşünas yalnız pozitiv hüquqla məşğul olmalıdır.Hadisələri zahirən müzakirə edir və nəyinsə yaxşı və ya pis olması onu maraqlandırmır". Hüquq hakim siyasi dairələr tərəfindən müəyyənləşdirilən normaların məcmusudur".İngiltərəyə aid olaraq Austinin suveren hesab etdiyi şəxslərə kral və parlament aid edilə bilər (Mehdiyev və Quliyev,2018).

**Təbii hüquq və pozitiv hüquq arasındakı fərqlər.** Təbii hüquq nəzəriyyəsinin təməli- ideal hüquq yəni ki,olması lazım olan hüquq qaydasıdır (lege feranda).Pozitiv hüquq nəzəriyyəsinin təməlində isə müəyyən bir cəmiyyətdə müəyyən dövrdə etibarlılıq qazanan və mövcud olan hüquq (lege lata) ideyası dayanır (Baş, Ö.C., Özçelik A.,2022). Pozitiv hüquq və təbii hüququ daha yaxşı anlamaq üçün onları aşağıdakı kimi izah etmək olar:

Pozitiv hüquq:

Nəzəriyyənin əsas ideyası ondan ibarətdir ki,insan hüququn mahiyyətini dərk etməz yalnız zahiri əlamətlərini dərk edə bilər.Zahiri əlamətlər isə qanunlardır. Qanunlar isə dövlət tərəfindən yaradılır.Pozitivistlərin əsas 3 mülahizəsi var: 1)hüququ dövlət yaradır 2)hüquq rəsmi aktlarda ifadə olunmalıdır 3)hüquqda dövlət məcburetməsi var.

Təbii hüquq:

Bu haqda görkəmli hüquqşünas Əmir Əliyev öz kitabında qeyd edir ki,təbii hüquq nəzəriyyəsi XVII-XVIII əsrlərin ideoloqları tərəfindən hazırlanmışdır.Onlar hesab edirdilər ki, hələ dövlət və hakimiyyət mövcud olmadığı dövrlərdə təbii vəziyyət hökm sürürdü,yəni müasir dövrdə mövcud olan dövlət anlayışı o dövrdə yaranmadığından sosial struktur da tam formalaşmamışdır.Təbii vəziyyətdə həyat azad idi və hər bir şəxs ümumi və təbii hüquqlardan istifadə edirdi. Bir sözlə, bu nəzəriyyənin nümayəndələri hüquqların insana doğulmaları etibarilə,təbiətən verildiyi fikrini müdafiə edirdilər.Onlar yazılsa da , yazılmasa da qəbul olunmuş haqlar idilər.Məsələn:yaşamaq hüququ.

Pozitivistlər hüququn mənbəyini güc,məcburiyyət və sanksiyaları tətbiq edən hakimiyyət ilə əlaqələndirirlər.Statist hüquq nəzəriyyəsi(dövlətçi hüquq) ilə pozitivizm paralel hərəkət edir.Bu anlayışa görə mövcud olan qanun ən səlahiyyətli hüquq normasıdır. Buna görə də hüququ tətbiq edən şəxsin təfsir imkanları məhduddur (Türkbağ,2010). Hakimin vəzifəsi hüquq yaratmaq deyil,mövcud hüquq normasını tətbiq etməkdir. Hüquq normasını digər normalardan fərqləndirən onun məzmunu deyil,məcburiyyətin olmasıdır.Hüquq normaları insan hərəkətlərinin qanuni olub-olmadığını müəyyənləşdirən qəliblərdən başqa bir şey deyildir.Məsələn: Edamın icrasının cinayət olmadığı kimi,edam qanunla müəyyən edilən hüquqpozuntusu nəticəsində ortaya çıxan hüquqi nəticədir.Edam cəzasını yerinə yetirən şəxs buna görə cəzalandırılmır. Bu həm də hüququn etikadan ayrılması deməkdir,çünki davranış yalnız qanunla cinayət sayıldığı üçün cəzalandırılır və qanunla tənzimlənməyən davranışın hüquqi məsuliyyətə cəlb olunmayacağı qəbul edilir.

**Hüquqi pozitivizmin yaranması və ona təsir edən amillər:** Ümumi olaraq ictimai elmlərdə pozitivizm anlayışı Oqust Kont ilə başlayıb.O.Kont insan təfəkküründün inkişafını 3 bölməyə ayırır: 1)Bütün hadisələrin qeyri-adi səbəblərlə izah edildiyi teoloji dövr 2)əşya və hadisələrin görüşü altında var olduğu düşünülən prinsip və ideallara əsaslanan metafizik dövr 3)Tarix,fəlsəfə və elmdə fərziyyələrə əsaslanan hər cür quruluşu rədd edən,hadisələrin inkişaf və onların qarşılıqlı müşahidə və təcrübə yolu ilə əldə olunduğu ideyasını dəstəkləyən pozitivizm XIX əsrin ikinci yarısından etibarən bütün elmlərə öz təsirini qoymuşdur.Hüquqi pozitivizm Oqust Kontun nəzəriyyəsinə əməl edərək,və ya ondan cəsarət alaraq,insan şüurunun faktların müşahidəsindən kənara çıxan istənilən fəaliyyətini boş və dəyərsiz hesab edir.Buna görə də, pozitivistlər hüquq elminin vəzifəsini qüvvədə olan hüquq sisteminin təhlili və izahı ilə məhdudlaşdırır.

Hüquqi pozitivizmin iki təməl iddiası var: 1) tamlıq 2) uyğunluq. Tamlıq-Pozitiv hüquq sisteminin tam olması yəni ki, hüquq sistemində heç bir şəkildə boşluğun olmaması deməkdir.Tamlıq iddiası sadəcə olaraq qeyri-reallıqdır.Pozitiv hüququn tam və əksiksiz olması, hər şeydən əvvəl qanunvericinin gələcəkdə yarana biləcək kolliziyaları və ya ehtiyac duyulan dəyişiklikləri öncədən görməsi ağlasığmazdır.

Uyğunluq-hüquqi Pozitivizmin ikinci bir iddiası da,müsbət hüququn uyğun olması heç bir ziddiyyətin olmamasıdır.Pozitiv hüququn uyğunluğu iki şəkildə baş verir:Birinci ehtimal sistemin müddəaları,qaydaları öz aralarında artıq uyğunluq təşkil edir, ikinci ehtimal isə pozitiv hüquq sistemində ziddiyyət olsa da , pozitiv hüququn özü o ziddiyyətləri aradan qaldıra biləcək qərarlara sahib olması.Türkiyə qanunlarında xüsusilə də cinayət məcəlləsi və mülki məcəllə arasında ziddiyyətləri görmək mümkündür (Zeynep, Ö., Üskül, E. 2023).

**Pozitiv hüququn totalitar rejimin yaranmasındakı rolu.** Biz tez-tez pozitiv hüququn totalitar rejimə yol açması haqqında iddialara rast gələ bilərik. Pozitiv hüquq Almaniyada totalitar rejimin qurulmasından 75 il əvvəl,digər bütün ölkələrdə olduğundan daha çox güc qazanıb.Almaniyada pozitivizmin qurucularından biri hesab olunan Bergbodh hüququn etibarlılığı mövzusunda əxlaqi dəyərlərə önəm vermirdi.Hüququ hüquq edən onun haqlılığı deyil,onun siyasi hakimiyyətin iradəsinin məhsulu olmasıdır.Bu səbəbdən dövlət idarəsində iştirak edənlər tərəfindən verilən hər bir əmr, məzmunundan asılı olmayaraq hüquq sayılır.Haqlılıq və inandırıcılığın bir əhəmiyyət kəsb etmədiyi bu anlayışda,hüququn sahib olduğu əsas xüsusiyyəti məcburiyyətin olması idi (Cole, Schneider; 2023).

**Pozitiv hüquqda boşluqlar anlayışı.** V.V.Lazarev özünün "Ümumi hüquq və dövlət nəzəriyyəsi"adlı kitabında bu haqda geniş məlumat verib."Boşluq" anlayışı iki məna verir.Bu söz həm birbaşa mənasında işlənir,həm də dolayısı ilə çatışmazlığı,problemi ifadə edir.İkinci mənada o daha vacib olanın icra edilməməsini,yanlışlığı,səhvi,yəni qeyri-təmilliyi səciyyələndirir.Beləliklə, boşluq haqqında bilərəkdən doldurulmamış məkan, predmetin spesifikasından asılı olmayaraq doldurulmaya məruz qalmamalı bir şey kimi də danışmaq mümkündür. Birbaşa mənasında isə boşluq predmetin vacib keyfiyyətidir,yəni doldurarkən predmet gerçəkliyini itirir.Çünki boşluğun doldurulması keyfiyyətcə yeni predmetin yaranması deməkdir.Əks mənada işlənmə isə mövcud çatışmazlığın labüd aradan qaldırılmasını ifadə edir.Pozitiv hüquqda boşluq-nə qanunun,nə qanunqüvvəli aktın,nə adətin,nə də presedentin olmadığı haldır.Hüquqda boşluqların dodlurulması onların müəyyənləşdirilməsinə dair fəaliyyətin məntiqi davamı və bununla bərabər onun tamamlayıcı mərhələsidir. Ən çox verilən suallardan biri də budur:"Bəs mövcud boşluğu kim doldurmalıdır?" Belə bir düşüncə tərzindən imtina etmək lazıdır ki, qanundakı boşlulaqları onların tətbiqini yerinə yetirən məhkəmələr,və ya başqa orqanlar doldurmalıdır.Bilməliyik ki, qanundakı boşluğu əlavə qanunyaradıcılığı yolu ilə doldurmaq olar.Boşluqların doldurulması məsələsinin təhlilində Avropa qitəsində əsas diqqət məhkəməyə deyil,normativ hüquqi aktların qəbulu hüququna malik olan orqanlara verilir.Müəyyən boşluğun doldurulması səlahiyyəti yalnız bu və ya digər məsələləri həll etmək hüququna malik normayaradıcı orqanın səlahiyyəti çərçivəsində mümkündür.Hər bir orqan hüquqi tənzimləmə tələb edən və sözügedən orqanın fəaliyyət sferasına aid edilən yeni ictimai münasibətlərin peyda olması səbəbindən boşluqları aradan qaldırmaq hüququna malikdir.

**Pozitiv hüquqda ədalət anlayışı.** Ədalət ümumi prinsiplərə aiddir.Ümumi prinsiplərin digər elementləri də ədalət şüurundan törəmişdir.Ədalətin əsasında tarazlaşdırmaq,əvəz etmək və mütənasiblik kimi anlayışlar dayanır.Təbii(ideal)hüquqa görə ədalət hüququn özəyidir. Və bir qaydanın hüquq qaydası kimi tanınması üçün ən başlıca şərti ədalətli olmasıdır. Pozitiv hüquq isə təbii hüququn ədalət konsepsiyasını tənqid edir.Pozitivistlərə görə ədalət metafizik,bilinməyən bir dəyərdir. Pozitivistlər isə bu anlayışın hüquq elmindən kənarda qalmalı olduğunu düşünürlər. Mənim kimi əksər insanların və hüquqşünasların düşüncəsinə görə,bu yanlışdır. Hüququn əsas vəzifəsi ictimai münasibətləri dəqiq və ədalətli şəkildə tənzimləməkdir. Pozitivist nəzəriyyəyə görə "ədalət" fiziki,faktiki reallıq deyil, "dəyər"dir.Digər tərəfdən Kelzen bildirir ki, hüquq normaları fövqəlbəşəri iradə ilə deyil,insan iradəsi ilə təyin olunduğundan ,hüquq normaları ilə ziddiyyət təşkil edən dəyərlər irəli sürülə bilər.Məsələn,bir ölkənin hüquq norması intiharı qadağan edirsə,digər ölkənin hüquq norması bunu sərbəst seçim kimi dəyərləndirə bilər **.**Normalar insan iradəsi ilə təyin olunduğundan bu normalardan əldə olunan dəyərlər də özbaşınadır.Buna görə də dəyərlər nisbi anlayışdır.Hanz Kelzenin fikrincə, müxtəlif situasiyalarda,müxtəlif yer və ya vaxtlarda eyni bir şey üçün "ədalətli" "ədalətsiz" "yaxşı" və ya "pis" fikirləri formalaşa bilər.Bir sözlə,bu "dəyər"lər sahəsində əslində ortaq

dəyərin olmadığı düşünülür.Ümumi olaraq isə sülhün qorunması bütün əxlaq sistemlərinə xas olan xüsusiyyət olmalıdır.Xülasə,Kelzenin fikrincə ədalət də daxil olmaqla mütləq bir dəyər yoxdur və dəyərlər şəxslərə,sistemlərə görə nisbilik təşkil edə bilər (Kelzen,1978). Hüquqi pozitivizm də məhz elə bu fikri "dəyərlərin nisbiliyi prinsipi"ni dəstəkləyir.Nəticədə pozitivizmə görə ədalət metafizik anlayışdır,metafizik anlayışlar isə kəşfiyyat mövzusu ola bilməz .

**Pozitiv hüquqa tənqidi yanaşmalar.** Pozitiv hüquq haqqında edilən tənqidlər həm iradəci pozitivizm həm də normativizm üçün keçərlidir. Pozitiv hüquqa qarşı ilk tənqidlər fəlsəfi xarakter daşıyır.Belə ki, burada hüququn iki aspekti:empirik və metafizik aspekti olduğu düşünülür.Metafizika empirik aspekti aşan tərəfdir.Fəlsəfədə empirizm biliyin təcrübə yolu ilə əldə edildiyi fikrini irəli sürür, metafizika isə varlıq aləmini hər aspektdən araşdıran sahədir.Nə mövcuddur,necə mövcuddur kimi suallara cavab tapmağa çalışır.Empirizmdən ən əsas fərqi isə,empirizmdə sübutlar mühüm rol oynayır.Bayaqkı ədalətlə bağlı başlıqda da ədalət və digər dəyərlərin faktiki olmayan , nisbi və metafizik anlayışlar olduğunu qeyd etdim. Pozitiv hüquqa digər tənqid isə "haqsızlıq tezisi" ilə Qustav Radbruçdan gəlir.Radbruça görə, pozitiv hüquq ədalətlə açıq-aşkar ziddiyyət təşkil edə bilərsə,deməli,insan haqlarını heçə sayır.Və etibarlılığı yoxdur.Digər tərəfdən isə Radbruç pozitif hüququn təbii hüquq tərəfindən nəzarət edilməli olduğunu söyləyir.Federal Almaniya Konstitusiya Məhkəməsi bir çox qərarında Radbruçun bu fikirlərinə istinad etmişdir. Yəhudilərin irqçilik səbəbi ilə Alman vətəndaşlığını itirmələri ilə əlaqədar olaraq İmperiya Vətandaşlıq haqqında qanunla bağlı verdiyi 14.02.1968 il tarixli qərardır.Burada ədalətin təməl prinsipləri ilə ziddiyyət təşkil edən müddəaların ləğv edilməsi haqqında hökm çıxarılmışdır.Məhkəmə,hakimlərin də bu cür müddəaları tətbiq etməmələri haqqında da qərar qəbul etmişdir. Konstitusiya məhkəməsinin verdiyi bu cürətkar qərar,hüquq qavramı,ədalət ideyası və insan haqlarının qorunmaı baxımından totalitarizmə qarşı ən böyük tənqidi ifadə edirdi. Digər tənqidi yanaşma isə Ronald Dvorkin tərəfindən yönəlmişdir.Dvorkinə görə, isə hüquqi pozitivizm sadəcə normalara əsaslanması doğru deyil. Dvorkinə görə bir hüquq sistemi həm hüquq normalarına həm də "prinsiplər"ə əsaslanmalıdır. Sözügedən prinsiplərə ədalət ,bərabərlik və sair aid edilə bilər (Aktaş,2000). 3 tezis var ki,pozitiv hüququn mövqeyini təsvir etməyə kömək edir:

1)Pedigree tezisi - Bu tezisə görə,qanun yalnız insanlar itaətsizliyə maneə olmaq üçün güc təhdidindən istifadə edən hökmdarların əmrlərinə tabe olduqda mövcuddur.Məsələn: əgər deyilsə ki, bazar günü pizza yeməklə bağlı qanun olsa,amma itaətsizlik edənlər cəzalandırılmasa,deməli,bazar günü pizza yeməklə bağlı qanun yoxdur.

2)Ayrıla bilmə tezisi - Qanunun əxlaq normalarından ayrı olması deməkdir.Yəni ki,qanun var, amma əxlaqa istinad etmir. Məsələn, yolun sağ tərəfi ilə maşın sürmək haqqında qanun var,lakin əxlaqa istinad etmir.

3)Diskresion tezis - Bu bir növ qanunvericiliklə tənzimlənməyən işin həllində hakimə yeni qanun və ya ən azı məcburi hüquqi bəyanat yaratmağa kömək edir.

**Nəticə.** Hüququn ümumi mənşəyi və xarakterli ilə bağlı nəzəriyyələr sırasında pozitivizm nəzəriyyəsinin tətbiqi və təbii hüquq nəzəriyyəsinin təcrübi aspektləri daim bir-biri ilə ziddiyyət təşkil edir. Təbii hüquq nəzəriyyəsi hüququn təbiətinin müstəqilliyini, sosial münasibətlərin öz xarakteri etibari ilə tənzimlənməyə ehtiyacı olduğunu, hüququn bütövlükdə cəmiyyətin ruhundan irəli gəldiyini, insanların haqq-ədalət istəklərini təcəssüm etdiyini təbliğ edir. Pozitiv hüquq konsepsiyası isə hüquqa dövlət idarəçilik vasitəsi prizmasından yanaşır, hüququn dövlət tərəfindən əmr və sərəncamlar formasında cəmiyyətə çatdırıldığını, dövlət orqanları olmadan hüququn tətbiqinin keyfiyyətsiz olacağını vurğulayır. Bu iki konsepsiyası arasındakı ziddiyyət özünü müxtəlif hüquq sahələrində - mülki hüquq, cinayət hüququ, inzibati hüquq, insan hüquqları və s. göstərir. İnsan hüquqları nöqteyi-nəzərindən, pozitiv və təbii hüquqlar daima insanlar tərəfindən müqayisə predmetinə çevrilən mövzulardır. Pozitiv hüququn hüquq ədəbiyyatında, habelə dövlətin və cəmiyyətin idarə edilməsinin təşkilində mühüm rolu var. Təbii hüquqlar nə qədər yaxşı səslənsə də, cəmiyyət reallıqda olan qayda və qanunlarla hərəkət edir. Nəzərə almalıyıq ki,ictimai münasibətlərdəki ən mühüm məsələlər,bütün xırdalıqları ilə pozitiv hüquqla tənzimlənir. Məqalənin əvvəlində də pozitiv hüquqa ehtiyac duyulma səbəbi kimi vahid bazar iqtisadiyyatını göstərmişdik, təbii ki, tək səbəb bu deyil. İnsanların zahirdə olan hərəkətlərini tənzimləməkdə "yazılı olan" qanunlar fundamental əsas təşkil edir. Əks halda özbaşınalıqların qarşısını almaq olmaz. Pozitiv hüquqda olan dövlət məcburetməsi də insanlar da qanuna əməl etməkdə "məsuliyyət" hissi yaradır.Düşünürəm ki,pozitiv hüquqlar olmasa idi,insanlar

məsuliyyətsiz iradəyə tərk ediləcəkdilər. Bunlarla yanaşı,burada əsas prinsiplərin nəzərə alınmaması,bu nəzəriyyənin "boşluğudur". Bəzi nümayəndələr tərəfindən isə nəzəriyyə daha çox "müdaxiləçi dövlət" anlayışını insan şüurunda formalaşdırırlar. Xüsusilə də Con Austinin fikirləri bu yöndədir. Amma müdaxiləçi dövlət anlayışı, və ya dövlət xaricində şəxsin heç bir hüququ olmaması pozitiv hüququn yanaşmaları deyil,bu yanaşmalar qanuni hüquqlar nəzəriyyəsinə (theory of legal rights) aiddir.

**ƏDƏBIYYAT SIYAHISI**


1. Kelsen, H. (1978). Essays in legal and moral philosophy:selected and introduced by Otta Weinberg. Synthese Library (SYLI, volume 57).
2. Bodenheimer, E. (1954). Significant development in german legal philosophy since 1945. The American Journal of Comparative Law. Oxford University Press, Vol. 3, No. 3, 379-396.
3. Aktaş, S. (2000). Pozitivist hukuk kavramı üzerine eleştirisel bir refleksiyon. Ankara Üniversitesi Hukuk Fakültesi Dergisi. Ankara Üniversitesi, c. IV, s.1-2, 257-274.
4. Gözler, K. (2008). Tabii hukuk ve hukuki pozitivizme göre adalet kavramı. Muhafazakar Düşünce Dergisi, 4 (15).
5. Akbay, M. (1947). Kelsenin hukuk ve devlet teorisi. Ankara Üniversitesi Hukuk Fakültesi Dergisi, 4(1), 44-45.
6. Lazarev V.V. (2014). Ümumi hüquq və dövlət nəzəriyyəsi. Bakı: "Qanun" nəşriyyatı.
7. Polis Akademiyası. (2014). Hüquq nəzəriyyəsi. Bakı: Mütərcim nəşriyyat, s. 207.
8. Gözler, K.(2018). Hukuka Giriş. Bursa: Ekin Yayınevi.
9. Mehdiyev, F. Quliyev,E.(2018) . Hüquq nəzəriyyəsi. Bakı: "Gənclik" nəşriyyatı. s.249-250.
10. Əliyev, Ə. (2019). İnsan Hüquqları. Bakı: "Nurlar" nəşriyyatı.
11. Türkbağ A.U. (2010). Kanıtlanamayanı kanıtlamak: Ronald Dworkin'in hukuk kuramı. İstanbul Derin Yayınları.
12. Cole D., J. Schneider. (2023). Legal Positivism | Examples, Pros & Cons.
https://study.com/academy/lesson/legal-positivism-definition-lesson.html
13. Kelzen, H. (2018). Saf hukuk kuramı nedir?. Çev. Kasım Akbaş. Hukuk Kuramı, c. 5, s. 3, 99-107.
14. Baş, Ö.C., Özçelik A. (2022). Osmanlı son dönem hukuk literatüründe doğal hukuk - pozitif hukuk ayrımı: Mehmet Servet'in Mukaddime-i İlm-i Hukuk Adlı Eseri. Necmettin Erbakan Üniversitesi Hukuk Fakültesi Dergisi (NEÜHFD). NEU Press, 5 (2), 675-692.
15. Zeynep, Ö., Üskül, E. (2023). Olan hukuk - olmayan hukuk . XI Hukuka Felsefi ve Sosyolojik Bakışlar Sempozyumu Özet Kitapçığı. İstanbul Barosu Yayınları, 151-164.


# ELEKTRON QAYDADA INZIBATI ICRAATIN APARILMASININ HÜQUQI ƏSASLARI


**ZƏRIFƏ MƏMMƏDOVA**
Bakı Dövlət Universiteti
Hüquq fakültəsi
*zarifamammadova8@gmail.com*
BAKI, AZƏRBAYCAN



**XÜLASƏ**

Hüquq sistemi nizamasalma predmetinə görə bir-birindən fərqlənən hüquq sahələrindən ibarətdir. Hər bir hüquq sahəsinin nizamasalma predmetini cəmiyyətdə yaranan ictimai münasibətlər təşkil edir. İnzibati hüquq digər hüquq sahələrindən fərqli olaraq inzibati idarəetməni tənzimləyən hüquq sahəsidir. İnzibati hüquq ümumi, yəni publik hüquqi münasibətləri tənzimləməklə dövlət orqanları ilə fiziki və ya hüquqi şəxslər arasındakı münasibətləri nizama salır. İdarəetmə daha geniş mənada nəyinsə (və ya kiminsə) üzərində rəhbərliyin həyata keçirilməsi deməkdir. İctimai əhəmiyyət daşıyan inzibati fəaliyyət və ya inzibati idarəetmə dövlətin əsas funksiyasıdır. Bu münasibətlərin nizamasalma mexanizmi qanunlarda və qanunvericilik aktlarında öz əksini tapır. Bu münasibətlərdə bir tərəfdə dövlət orqanları çıxış etdiyindən bu cür münasibətlər imperativ xarakter daşıyır. Bu səbəbdən bu cür münasibətlərin tənzimlənmə qaydası birmənalı şəkildə qanunvericilik aktlarında

tənzim olunmalıdır. İnzibati icraatın tənzimlənməsi qaydaları xüsusi qanunla tənzimlənir. İnzibati icraat dedikdə, fiziki və ya hüquqi şəxslərin müraciəti əsasında və ya inzibati orqanların öz təşəbbüsü ilə inzibati aktın qəbul edilməsi, icra olunması, dəyişdirilməsi və ya ləğv edilməsi, habelə inzibati şikayətlərə baxılması üzrə müvafiq inzibati orqanlar tərəfindən bu Qanunla müəyyən olunmuş prosedur qaydalar daxilində həyata keçirilən fəaliyyət başa düşülür.Bu qanunda inzibati icraatın hansı qayda və əsaslarla aparılması öz əksini tapmışdır. Bu məqalədə təcrübədə rast olunan lakin qanunvericilikdə vahid nizamlanma qaydası öz əksini tapmayan xüsusat kimi elektron inzibati icraatın aparılması qaydası və əsasları barədə araşdırılma aparılmışdır.

**AÇAR SÖZLƏR: inzibati idarəetmə, inzibati orqan, elektron inzibati icraat**

## GİRİŞ

"İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanunu inzibati icraatla bağlı yaranan münasibətləri tənzimləyən ümumi qanundur. Bu qanunun qəbulu bu sahədə mövcud problemlərin həllində mühüm rol oynamış, hüquqi başlanğıcları və əsas istiqamətləri əks etdirməklə bütün inzibati orqanlar üçün hüquqi vahidliyi təmin etmişdir. Sözügedən qanun iki əsas məqsədi özündə ehtiva edir ki, bunlar hüququn əsas prinsipi və başlanğıcı sayılan insan hüquq və azadlıqlarının təmin edilməsi və qanunun aliliyidir. Qanunun aliliyi prinsipi inzibati orqanların fəaliyyətinin qanunvericiliyə uyğun həyata keçirilməsini və vətəndaşların onların qanunsuz hərəkətlərinin qarşısının alınmasını əhatə edir. "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununda inzibati icraatın anlayışı, onun aparılması qaydası və əsasları öz əksini tapmışdır. Qanunda inzibati icraatın aparılmasının üç əsası qeyd olunmuşdur ki, bura fiziki və ya hüquqi şəxsin müraciəti, inzibati orqanın təşəbbüsü və inzibati aktdan şikayət verildiyi halda, inzibati şikayət daxil edilir. Müasir dövrdə texnologiyanın inkişafı bir çox sahələrə bu və ya digər mənada öz təsirini göstərməklə inzibati icraatdan da yan keçməmişdir. Belə ki, inzibati orqanların iş yükünün azaldılması, o cümlədən inzibati orqanların işində "insan" faktorunun azaldılması və operativliyin artırılması məqsədilə elektron qaydada fəaliyyətinin aparılmasına başlanılmışdır. Lakin hazırki qanunvericilikdə bunun tənzimlənməməsi bu məqalənin tədqiqat mövzusunu təşkil edir. Məqalə giriş, 2 paraqraf və nəticə hissədən ibarət olmaqla, inzibati icraatın aparılmasının əsasları və qaydaları öz əksini tapmışdır.

## İNZİBATİ İCRAATIN ANLAYIŞI VƏ MAHİYYƏTİ

İngilis dilində «administration», rus dilində «администрация» kimi ifadə olunan, Azərbaycan dilində də ümumi mənada «idarə» kimi tərcümə edilən anlayışdan dövlət və cəmiyyət idarəetməsi kimi iki mənada istifadə olunur. Administrasiya (idarə) öncə dövlətin müəyyən növ orqan və qurumlarını ifadə edir, bunlar haqqında qanunvericilik («İnzibati icraat haqqında» Qanun) "inzibati orqanlar" terminindən istifadə edir.(Mehdiyev, 2010)

İnzibati icraat hərtərəfli termin kimi geniş anlayışa malikdir. İnzibati icraat inzibati idarəetmə anlayışının təzahürü olmaqla dövlətin qanunla müəyyən edilmiş səlahiyyətli orqanları tərəfindən həyata keçirilən fəaliyyətdir. İnzibati icraatın mahiyyətinə gəldikdə, qeyd etmək lazımdır ki, bu, vətəndaşların hüquqlarının müdafiəsi üçün mühüm vasitələrdən biridir. Çünki inzibati icraat vətəndaşlara işin bütün hallarını bilməyə və inzibati icraatda fəal iştirak etməyə, iddialar irəli sürməyə və hətta yuxarı orqanlara və məhkəməyə müraciət etməyə imkan verir.

İnzibati icraat, əsasən, qurumun icazə verən aktının dili, müvafiq inzibati prosedur aktı və qurumun qəbul etdiyi prosessual qaydalarla tənzimlənir. Bir çox agentlik fərdi məsələlər üçün xüsusi prosedurlardan istifadə edir, ona görə də konkret agentliyin qərar qəbul etmə prosesini həddən artıq ümumiləşdirmək təhlükəlidir. Bəzi hallarda məhkəmələr qurumlardan müəyyən prosedurlara əməl etməyi tələb ediblər. Qərarların qəbul edilməsində agentliyin üç əsas komponenti var: qaydaların qəbulu (rulemaking), mühakimə (adjudication) və qeyri-rəsmi fəaliyyət (informal action). Agentliyin qərar qəbul etməklə bağlı prosedurları adətən agentliyin məşğul olduğu sahədən asılı olara asılı olaraq dəyişir (William F. Fox, Jr. 2000).

Hər bir demokratik dövlətin inzibati icraat qaydası vardır. Onlardan bəziləri, məsələn, ümumi hüquq ölkələri, məsələn, Fransa və ya hətta Avropa İttifaqı kimi ölkələr əsasən presedent hüququna əsaslanan tənzimləyici struktur yaratmışdır. Digərləri isə prosessual aspektləri həll etmək üçün hüquqi baza yaratmışlar. Bu model ABŞ-da (1946-cı il İnzibati Prosessual Aktı ilə birlikdə inzibati proses haqqında konstitusiya doktrinası), Almaniyada (1976-cı il Federal qanun), İtaliyada (1990-cı il

qanunu) və İspaniyada (1956-cı il İnzibati Prosessual Qanun) qəbul edilmişdir (Prof. Andrés Molina Giménez, 2013).

Məhkəmə prosesi və inzibati icraat özündə ümumi prinsipləri və məqsədləri bölüşsə də, onların mahiyyəti əslində fərqlidir. Ədalət mühakiməsi ədalətli və qərəzsiz qərar çıxarmağa çalışsa da, inzibati icraat mübahisə edən tərəflərə münasibətdə ümumi marağa ("general interest") nail olmağa çalışır. Lakin bu o demək deyil ki, inzibati icraat sadəcə formal xarakter daşıyır, sadəcə inzibati icraat qanunçuluq prinsipinə əsaslanmaqla həyata keçirilir.

Zəruri olmasına baxmayaraq, inzibati icraat şübhəsiz ki, bürokratik yüklər yaradır, bəzən vətəndaşın yekun qərara və ya məhkəmə baxışına tez çatmasına mane ola bilər. Proseslərin sadələşdirilməsi və tənzimləyici yüklərin azaldılması, çox güman ki, Avropadakı əksər hökumət siyasətinin cari əsas problemlərindən biri olacaqdır. Daxili bazarda xidmətlərə dair Avropa Şurası Parlamentinin 12 dekabr 2006-cı il tarixli 2006/123/EC Direktivi buna yaxşı nümunədir. LRJPAC-da 1999-cu ildə edilən düzəlişlər "proseslərin sadələşdirilməsinə və lazımsız bürokratiyanın aradan qaldırılmasına" istinadı ehtiva edir. Ancaq praktikada bununla bağlı əhəmiyyətli işlər görülməmişdir.

Qanunvericiliyimizə nəzər yetirsək, inzibati icraatın əsasən "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanunu ilə tənzimləndiyini görərik. Həmin Qanunun 2.0.6-cı maddəsinə əsasən inzibati icraat dedikdə, fiziki və ya hüquqi şəxslərin müraciəti əsasında və ya inzibati orqanların öz təşəbbüsü ilə inzibati aktın qəbul edilməsi, icra olunması, dəyişdirilməsi və ya ləğv edilməsi, habelə inzibati şikayətlərə baxılması üzrə müvafiq inzibati orqanlar tərəfindən bu Qanunla müəyyən olunmuş prosedur qaydalar daxilində həyata keçirilən fəaliyyət başa düşülür.

Yuxarıda qeyd olunan norma baza rolunu oynamaqla inzibati icraatın dar mənada anlayışını ifadə edir. Dar mənada dedikdə, inzibati icraatda inzibati aktın qəbul edilməsi, dəyişdirilməsi, ləğv edilməsi və ya icra edilməsi başa düşülür.

Qeyd olunan anlayışdan görünür ki, inzibati icraatın başlanılması üçün Qanunda qeyd edilən 2 əsasdan biri olmalıdır: a) fiziki və ya hüquqi şəxsin müraciəti, b) inzibati orqanın təşəbbüsü. İnzibati orqan tərəfindən inzibati icraat başlanılması fiziki və ya hüquqi şəxsin müraciətinin qeydə alındığı gündən hesablanır. İnzibati orqanın öz təşəbbüsü ilə inzibati icraat başlanıldıqda, inzibati icraatın müddəti inzibati icraatın başlanılması haqqında qərarın qəbul olunduğu və yaxud inzibati icraatın aparılması ilə əlaqədar hərəkətlərin həyata keçirilməyə başlanıldığı gündən hesablanır. Burada mübahisəli məqamlardan biri də inzibati icraatın başlanılması haqqında qərarın qəbul edilməsinin labüd olub-olmamasıdır. Qanunvericilikdə bununla bağlı xüsusi norma öz əksini tapmamışdır. İnzibat icraat inzibati orqanın təşəbbüsü ilə başlanıldıqda, inzibati icraatın açılması barədə qərarın qəbul edilməsinin formal olduğu və əhəmiyyət kəsb etmədiyi vurğulanır. Belə ki, əlavə prosedurun müəyyən edilməsi inzibati orqanın işinin daha da ləng olmağına gətirib çıxaracağı bildirilir. Yəni, inzibati orqanın müəyyən istiqamət özündə rəhbər tutaraq fəaliyyətə başlaması inzibati orqanın öz təşəbbüsü ilə inzibati icraata başlaması deməkdir. İnzibati icraatda inzibati orqan maraqlı şəxsə hüquqverən, onun hüququnu məhdudlaşdıran və ya ləğvedən inzibati aktlardan birini qəbul edir, dəyişdirir və ya ləğv edir. Həmçinin inzibati orqan qəbul edilən qərarlardan birinin icrasını təmin edir.

## İNZIBATI ICRAATIN APARILMASI QAYDASI VƏ ƏSASLARI. ELEKTRON INZIBATI ICRAAT

İnzibati icraatın başlanılması üçün Qanunda qeyd edilən 3 əsasdan biri olmalıdır: a) fiziki və ya hüquqi şəxsin müraciəti, b) inzibati orqanın təşəbbüsü, c) inzibati aktdan şikayət verildiyi halda, inzibati şikayət. Qeyd olunan əsasların başlanılması anı inzibati icraatın müddətinin başlanması üçün əhəmiyyət kəsb edir.

İnzibati orqan tərəfindən inzibati icraatın başlanılması fiziki və ya hüquqi şəxsin müraciətinin qeydə alındığı gündən hesablanır. Belə ki, inzibati icraatın başlanması və fiziki və ya hüquqi şəxslərə hüquq və imtiyazların verilməsi üçün onların müraciəti tələb edilir. Məsələn, dərman satışı ilə əlaqədar lisenziyanın verilməsi üçün fiziki və ya hüquqi şəxsin müraciəti əsasdır (Kərimov, 2006). Qanunvericilikdə ərizənin maraqlı şəxs tərəfindən ərizədə qaldırılmış məsələ ilə əlaqədar inzibati akt qəbul etmək səlahiyyətinə malik olan müvafiq inzibati orqana çatdırılması təqdimolunma adlandırılır. Təqdimolunma özündə 3 qaydanı nəzərdə tutur: şəxsən, poçt rabitəsi vasitəsilə və elektron üsulla. Təqdimolunma o halda əhəmiyyətli hesab edilir ki, ərizə maraqlı şəxsin özü tərəfindən müraciət edilsin. Bu isə hüquq elmində "actio popularis" prinsipi ilə əlaqədardır (başqasının hüquq və qanunla qorunan maraqlarının müdafiəsi və ya həyata keçirilməsi ilə bağlı müraciətlərin qəbul edilməsinin

yolverilməzliyi). Ancaq bu prinsip maraqlı şəxsin etibarnamə üzrə nümayəndəsinin müraciətini istisna etmir. "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 31-ci maddəsinə əsasən inzibati orqan ərizəçi tərəfindən şəxsən təqdim olunmuş və ya poçt rabitəsi vasitəsilə daxil olmuş ərizəni qəbul etməli və həmin gün qeydiyyata almalıdır. İnzibati orqan ərizənin qəbul edildiyi gündən ən geci üç gün müddətində ərizənin qeydiyyat tarixi və nömrəsi haqqında ərizəçiyə arayış verməyə və ya göndərməyə borcludur. İnzibati orqan üç gün müddətində ərizənin bu Qanunun 30-cu maddəsində nəzərdə tutulmuş tələblərə uyğunluğunu yoxlayır.

İnzibati orqanın öz təşəbbüsü ilə inzibati icraat başlanılması ictimai mənafeləri təmin etmək məqsədi güdür. Məsələn, ətraf mühitə zərər və ya təhlükə törədilməsi hallarında. İnzibati orqanın öz təşəbbüsü ilə inzibati icraat başlanıldıqda, inzibati icraatın müddəti inzibati icraatın başlanılması haqqında qərarın qəbul olunduğu və yaxud inzibati icraatın aparılması ilə əlaqədar hərəkətlərin həyata keçirilməyə başlanıldığı gündən hesablanır. Burada mübahisəli məqamlardan biri də inzibati icraatın başlanılması haqqında qərarın qəbul edilməsinin labüd olub-olmamasıdır. Qanunvericilikdə bununla bağlı xüsusi norma öz əksini tapmamışdır. İnzibat icraat inzibati orqanın təşəbbüsü ilə başlanıldıqda, inzibati icraatın açılması barədə qərarın qəbul edilməsinin formal olduğu və əhəmiyyət kəsb etmədiyi vurğulanır. Belə ki, əlavə prosedurun müəyyən edilməsi inzibati orqanın işinin daha da ləng olmağına gətirib çıxaracağı bildirilir. Yəni, inzibati orqanın müəyyən istiqamət özündə rəhbər tutaraq fəaliyyətə başlaması inzibati orqanın öz təşəbbüsü ilə inzibati icraata başlaması deməkdir.

İnzibati icraat zamanı inzibati orqan barəsində inzibati akt qəbul ediləcək maraqlı şəxsin iştirakını təmin edə bilər. Qəbul olunması nəzərdə tutulan inzibati aktın digər fiziki və ya hüquqi şəxslərin hüquqlarına və qanunla qorunan maraqlarına birbaşa təsir edəcəyi güman olunduğu hallarda, inzibati orqan həmin şəxslərin üçüncü (maraqlı) şəxs qismində icraatda iştirakını təmin etməyə borcludur. İnzibati icraat zamanı tərəflər sübutları və sənədləri təqdim etdikdən sonra inzibati orqan yekunda inzibati akt qəbul edir və ya qəbul etməkdən imtina edir.

İnzibati icraatın başlanılması əsaslarından biri də maraqlı şəxslərin inzibati şikayətidir. Belə ki, maraqlı şəxs inzibati orqan tərəfindən qəbul edilmiş inzibati aktdan və ya inzibati aktın qəbul edilməsindən imtinadan şikayət vermək hüququna malikdirlər. İnzibati şikayət üzrə icraatın üç əsas məqsədi vardır. Birincisi, inzibati şikayət üzrə icraatın mümkünlüyü maraqlı şəxsin hüquqlarının inzibati orqanın öz daxilində təmin edilməsi və inzibati orqanın nəzarət mexanizminin formalaşdırılmasıdır. İkincisi maraqlı şəxsin hüquqlarının və maraqlarının səmərəli şəkildə təmin edilməsi məqsədidir. Üçüncüsü isə məhkəmələrdə iş yükünün çoxluğunun qarşısının alınmasıdır. İnzibati qaydada şikayət məhkəmə qaydasında şikayətə alternativ olmaqla, inzibati idarəçilik sistemi daxillində subordinasiya baxımından yuxarı olan inzibati orqan tərəfindən baxılan şikayət növü hesab edilir.

Müasir dövrdə texnologiyanın inkişafı özünü müxtəlif sahələrdə göstərməkdədir. Əlbəttə ki, bu innovativ tədbirlər inzibati orqanların fəaliyyətindən də yan keçməmişdir. Mövcud təcrübədə inzibati orqanların fəaliyyətinin electron qaydada həyata keçirilməsinə başlanılmışdır. Biz bunu bəzi dövlətlərin təcrübəsində də rast gələ bilərik.

Son bir neçə ildə İspaniya dövlət idarəçiliyində yeni texnologiyaların inkişafı ilə əlaqədar prosedur tənzimləmə irəliləmişdir. 22 iyun 11/2007 tarixli "İnzibati icraata elektron giriş haqqında" Qanun (11/2007 de 22 de Junio, de acceso electrónico a la Administración), bu sahədə əsas qaydaları bəyan edir. İnzibati hüquq sahəsində telematik icraat, çox güman ki, ən maraqlı tədqiqat sahələrindən biridir. Bu, təkcə icraatları sadələşdirməyə deyil, həm də ictimai iştirakçılığı təşviq etməyə imkan verir və nəticədə şəffaflıq və hesabatlılıq üçün yeni əsasların əldə olunmasına kömək edir.

2007-ci il tarixli "İnzibati icraata elektron giriş haqqında" Qanun vətəndaşlara elektron vasitələrlə inzibati orqanlarla münasibətlər qurmaq hüququ verir. Bu, vətəndaşlara inzibati məlumatlara, sənədlərə tam girişi təmin etmək üçün bir sıra hüquqlar verən LRJPAC-ın 35-ci bölməsinə uyğundur. Bundan əlavə, Qanunun 6-cı maddəsinə əsasən vətəndaşların onlayn məlumat almaq, məsləhət almaq, ərizə və vəsatətlər vermək, şikayətlər, təkliflər vermək, ödənişlər etmək, əməliyyatlar aparmaq, inzibati qərar və qaydalardan şikayət vermək hüququ vardır (Prof. Andrés Molina Giménez, 2013).

Almaniyada inzibati orqanların normayaradıcılıq funksiyaları daha genişdir. İnzibati prosedur haqqında 25 may 1976-cı il Qanunu inzibati-hüquqi fəaliyyətin iki növünü ayırır: inzibati aktların qəbulu və idarəetmənin ümumnormativ aktlarının qəbulu. Ölkə qanunvericiliyinə görə inzibati akt

şifahi və yazılı qaydada verilə bilər. Əgər maraqlı şəxs tələb edirsə və öhdəlik xarakteri daşıyırsa şifahi akta yazılı forma verilir (Əliyev, 2023).

Almaniyanın inzibati qanunvericiliyində inzibati aktların yazılı, şifahi və electron qaydada qəbulu və digər şərtləri əks olunur. Belə ki, İnzibati prosedur haqqında 25 may 1976-cı il Qanunun 37-ci maddəsinə əsasən inzibati akt yazılı, elektron, şifahi və ya digər formada verilə bilər. Şifahi inzibati akt yazılı və ya elektron formada təsdiq edilməlidir ki, bunun edilməsinə əsaslı maraq olduqda və təsirə məruz qalan şəxs bunu dərhal tələb etsin. Yazılı və ya elektron inzibati aktda onu verən orqan göstərilməli və orqanın rəhbərinin, onun nümayəndəsinin və ya müavininin imzası və ya adı olmalıdır. Elektron formada istifadə edildiyi təqdirdə bir Qanuni müddəa ilə yazılı forması təyin edilmiş inzibati aktda, elektron imzanın əsaslandığı ixtisaslı sertifikatda və ya müvafiq ixtisas sertifikatında onu verən orqan da göstərilir.

Hazırki dövrdə inzibati icraatın aparılmasında operativliyin və səmərəliliyin artırılması, inzibati orqanların iş yükünün azaldılması məqsədilə elektron inzibati icraatın aparılmasına başlanılmışdır. İnzibati icraatın başlanılması üçün əsaslardan biri kimi inzibati orqan yalnız öz təşəbbüsü ilə avtomatlaşdırılmış qaydada inzibati icraatı həyata keçirə bilər. Bu zaman insan faktoru olmadan vətəndaşın hüquqları elektron qaydada təmin edilir və yaxud təmin edilməsindən imtina olunur. Məsələn, Dövlət Sosial Müdafiə Fondu tərəfindən avtomatlaşdırılmış qaydada əmək pensiyasının təyin edilməsi. Bu zaman sistemə inteqrasiya edilmiş məlumatlar əsasında avtomatlaşdırılmış qaydada əmək pensiyası hesablanır və təyin edilir. Eyni zamanda elektron qaydada vətəndaşa məlumat göndərilir. Vətəndaş inzibati orqanın hərəkətlərindən narazı qaldıqda məhkəməyə müraciət edə bilməsi üçün inzibati aktın (qərarın) təqdim edilməsi zəruridir. İnzibati icraat avtomatlaşdırılmış qaydada həyata keçirilərkən hər hansı inzibati akt tərtib olunmur. Bu səbəbdən, vətəndaş inzibati orqana yenidən müraciət edərək inzibati aktın tərtib olunmasını tələb edir. Halbuki avtomatlaşdırılmış qaydada inzibati icraatın həyata keçirilməsi inzibati orqanın iş yükünün azaldılması, vətəndaşların hüquq və azadlıqlarından sui-istifadənin minimuma endirilməsi məqsədi güdür. Təcrübədə isə bəzi hallarda vətəndaşların hüquqlarının təminatında süründürməçiliyə gətirildiyinin şahidi oluruq. Bu səbəbdən də inzibati icraatın avtomatlaşdırılmış qaydada həyata keçirilməsinin hüquqi rejiminin müəyyən olunması tədqiqat işində tövsiyə edilir.

## NƏTİCƏ

Təcrübədə və xüsusi sahəni tənzimləyən qanunvericilik aktlarında elektron qaydada inzibati orqanların fəaliyyəti öz əksini tapsa da, "İnzibati icraat haqqında" Qanunda bununla bağlı hər hansı müddəa öz əksini tapmamışdır. Şəxsin hüquqlarının daha operativ və şəffaf təmin edilməsi məqsədilə formalaşmış bu təcrübə müasir dövrdə inzibati icraatla bağlı fəaliyyətin inkişafını təcəssüm etdirir. Lakin electron qaydada aparılmış icraat fiziki və ya hüquqi şəxslərin hüquqlarına bu və ya digər şəkildə xələl gətirə bilər. Bu zaman şəxsin yuxarı inzibati orqana və ya məhkəməyə müraciət etməsi əlavə olaraq şəxsin hüquqlarının həyata keçirilməsinin ləngiməsinə səbəb olur. Müasir texnologiyanın inkişafı, cəmiyyətdə baş verən hadisələr müəyyən mənada bu münasibətlərə də öz təsirini göstərir. Hazırki dövrdə inzibati orqanların fəaliyyətinin avtomatlaşdırılmış qaydada həyata keçirilməsi müəyyən mənada inzibati orqanların fəaliyyətini yaxşılaşdırsa da, fiziki və hüquqi şəxslərin hüquqlarının pozulmasına gətirib çıxara bilir. İnzibati icraat haqqında qanunvericilikdə avtomatlaşdırılmış qaydada inzibati icraatın həyata keçirilməsinin hüquqi rejimi öz əksini tapmamışdır.

"İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununda inzibati icraatın avtomatlaşdırılmış qaydada keçirilməsi adlı fəslin əlavə edilməsi təklif edilir. Burada inzibati orqanın inzibati icraatın avtomatlaşdırılmış qaydada keçirilməsi zamanı vəzifələri, vətəndaşların hüquqları, inzibati icraatın müddəti qeyd olunmalıdır.

## ƏDƏBİYYAT SİYAHISI

1. Fərhad Mehdiyev (2010). İnzibati hüquq. Qafqaz Universiteti. Səhifə 515.
2. Sübhan Əliyev. İnzibati hüquq. Dərslik. Bakı: Bakı Universiteti nəşriyyatı, 2016, 686 s.
3. Səyyad Kərimov, Günəş Əliyeva. İnzibati icraat haqqında Azərbaycan Respublikası Qanunu kommentariya. Bakı: Hüquq ədəbiyyatı nəşriyyatı, 2006, 464s.

4. George H. Seefeld (1940). Judicial Review of Administrative Decisions, 24 Marquette Low Revew,Volume 24, Issue 2, Page 1-21

5. Aberham Yohannes (2009). Administrative Law Teaching Material. Indore Institute of Science & Technology. 1- 247

6. Frank E. Cooper (1958). Administrative Law: The "Substantial Evidence" Rule, American Bar Association. Volum 44, Issue 10, Pages 945-949, 1001-1003

7. William F. Fox (2000). Understanding Administrative Law Fourth Edition. Matthew Bender & Company, Inc., a member of the LexisNexis Group.

Richard B.Stewart (2003). Administrative law in the twenty-first century. New York University Law Review. 437.

# THE ANALYSIS OF QUANTITATIVE RESTRICTIONS IN IMPORT TRANSACTIONS IN THE CONTEXT OF NON-TARIFF BARRIERS

**PROF. JAMILA NAMAZOVA**
Vice-Rector of The Academy of The State Customs Committee
Cemile.Namazova@ascca.edu.az

**HUSEYN HUSEYNZADE**
Academy of The State Customs Committee
International trade and logistics
*Huseyn.Huseyinzade@ascca.edu.az*
BAKU, AZERBAIJAN

**SUMMARY**

This article analyses details of concept of non-tariff barriers in process of importation. Market access for goods and services from other countries can be, and frequently is, impeded or restricted in various ways. Non-tariff barriers (NTBs) refer to the wide range of policy interventions other than border tariffs that affect trade of goods, services, and factors of production. Most taxonomies of NTBs include market-specific trade and domestic policies affecting trade in that market. Extended taxonomies include macro-economic policies affecting trade. NTBs have gained importance as tariff levels have been reduced worldwide. Common measures of NTBs include tariff-equivalents of the NTB policy or policies and count and frequency measures of NTBs. The substantial reduction of non-tariff barriers to trade is, together with the elimination of discrimination, the key instrument of the World Trade Organization to achieve its overall objectives. Nevertheless, quantitative restrictions remain a significant barrier in international trade and further negotiations on the reduction of non-tariffs are therefore necessary.

**KEY WORDS: Customs, Non-tariff barriers, Quantitative restriction, WTO**

## INTRODUCTION

The WTO was formally established and became operational on 1 January 1995 when the WTO Agreement entered into force. Pursuant to the WTO Agreement, the WTO has a broad and ambitious mandate. The reasons for establishing the WTO and the policy objectives of this international organisation are set out in the Preamble to the WTO Agreement. The ultimate objectives of the WTO are thus: (1) the increase in standards of living; (2) the attainment of full employment; (3) the growth

of real income and effective demand; and (4) the expansion of production of, and trade in, goods and services. However, it is clear from the Preamble that in pursuing these objectives the WTO must take into account the need for preservation of the environment and the needs of developing countries. The Preamble stresses the importance of sustainable economic development, the importance of the integration of developing countries, and in particular least-developed countries, in the world trading system. According to the Preamble to the WTO Agreement, the two main instruments, or means, to achieve the objectives of the WTO are: (1) the reduction of tariff barriers and other barriers to trade; and (2) the elimination of discriminatory treatment in international trade relations.

In the Doha Ministerial Declaration of 14 November 2001, the WTO Members stated, with regard to the objectives of the WTO and its instruments for achieving these objectives: "International trade can play a major role in the promotion of economic development and the alleviation of poverty. We recognize the need for all our peoples to benefit from the increased opportunities and welfare gains that the multilateral trading system generates. The majority of WTO Members are developing countries. We seek to place their needs and interests at the heart of the Work Programme adopted in this Declaration. Recalling the Preamble to the Marrakesh Agreement, we shall continue to make positive efforts designed to ensure that developing countries, and especially the least-developed among them, secure a share in the growth of world trade commensurate with the needs of their economic development".

Not only tariff barriers but also a wide range of non-tariff barriers restrict trade. While tariff barriers were systematically reduced since the late 1940s as a result of successive rounds of tariff negotiations, non-tariff barriers have in recent decades gradually become an ever more prominent instrument of protection. [1] The term 'non-tariff barrier' is not defined in WTO law, but this important residual category of barriers to trade can be understood to include all government imposed and sponsored actions or omissions that act as prohibitions or restrictions on trade, other than ordinary customs duties and other duties and charges on imports and exports. Unlike tariff barriers, non-tariff barriers not only affect trade in goods but also trade in services.

The archetypical non-tariff barrier to trade is a quantitative restriction on trade in goods. A quantitative restriction on trade in goods, also referred to as a 'QR', is a measure that limits the quantity of a product that may be imported or exported. A typical example of a quantitative restriction is a measure allowing the importation of a maximum of 1000 tonnes of cocoa powder a year or a measure allowing the importation of a maximum of 450 tractors a year. While usually based on the number of units, weight or volume, quantitative restrictions may also be based on value, for example a limit on the importation of flowers to the value of €12 million per year. There are different types of quantitative restrictions: (1) a prohibition, or ban, on the importation or exportation of a product; such a prohibition may be absolute or conditional, i.e. only applicable when certain defined conditions are not fulfilled; (2) an import or export quota, i.e. a measure, as the examples given above, indicating the quantity that may be imported or exported; a quota can be a global quota, a global quota allocated among countries or a bilateral quota; (3) import or export licensing; and other quantitative restrictions. For an illustrative list of quantitative restrictions, refer to the 2012 WTO Decision on Notification Procedures for Quantitative Restrictions, also referred to as the 'QR Decision'.

Confusingly perhaps, a tariff (rate) quota, or 'TRQ', is not a quota in the strict sense of the term; it is not a quantitative restriction. A tariff quota is a quantity, which can be imported at a certain duty. The panel in US-Line Pipe (2002) stated that a tariff quota involves the 'application of a higher tariff rate to imported goods after a specific quantity of the item has entered the country at a lower prevailing rate'. [5] Any quantity above the quota is subject to a higher duty. For example, a Member may allow the importation of 5000 tractors at 10 percent ad valorem and any tractor imported above this quantity at 30 percent ad valorem. Tariff quotas are not quantitative restrictions because rather than prohibit or restrict the quantity of imports, they subject the imports to varying duties. As discussed below, customs duties and other charges and duties are explicitly excluded from the scope of quantitative restrictions. Tariff quotas are widely used with regard to agricultural products, but are also used for non-agricultural products. [6.p.480-1]

The European Union's intricate import regime for bananas, at issue in EC-Bananas III (1997) and subsequent EC-Bananas III disputes, provided for tariff quotas. Under this regime, the European Union initially granted, for example, duty-free access to 90000 tonnes of non-traditional African,

Caribbean and Pacific (ACP) bananas; the out-of-quota tariff rate for these same bananas was 693 ECU per tonne. In EC-Bananas III, the Appellate Body stated: "In contrast to quantitative restrictions, tariff quotas do not fall under the prohibition in Article XI:1 and are in principle lawful under the GATT 1994, provided that quota tariff rates are applied consistently with Article I". [2]

WTO Members are required to notify the WTO Secretariat of any quantitative restrictions which they maintain, and of any changes to these restrictions, as and when they occur. Such notifications must contain and / indicate:

- A general description of the restriction
- The type of restriction
- The relevant tariff line code
- A detailed product description
- The WTO justification for the measure concerned
- The national legal basis for the restriction
- Information on the administration of the restriction

With this information, the WTO Secretariat maintains a QR database, which its Members and the general public may consult. As of 19 May 2015, only twenty-seven WTO Members had submitted notifications of all their quantitative restrictions in force. In total, 731 quantitative restrictions were notified. [7]

***Rules on Quantitative Restrictions***

The broad scope of the prohibition on quantitative restrictions set out in Article XI:1 is clear from the text of Article XI:1 itself, which refers in addition to quotas and import licences, also to the undefined residual category of 'other measures'. As an illustration of the broad scope of the prohibition on quantitative restrictions, consider that Article XI was found to apply to: export quotas; minimum import price requirements; minimum export price requirements; a discretionary and non-automatic licensing system; trade balancing requirements; and restrictions on ports of entry. However, note that the Appellate Body stated in Argentina-Import Measures (2015), that the scope of the provision is 'not unfettered' and that the provision itself explicitly excludes 'duties, taxes and other charges' and l 'does not extend to areas listed in Article XI:2, and other GATT provisions, such as Articles XII, XIV, XV, XVIII, XX, and XXI, which permit a member, in certain specified circumstances, to be excused from its Article XI:1 obligations. Also measures that created uncertainty as to whether and under which conditions importation or exportation of products is allowed; and measures that make importation prohibitively costly have been found to be inconsistent with Article XI:1. [6.p.482-3]

As the Appellate Body ruled in China- Raw Materials (2012), the term 'restriction' refers generally to something that has a limiting effect, and the use of the term 'quantitative' in the title of Article XI suggests that the restriction within the meaning of Article XI:1 is a measure that has a limiting effect on the quantity or amount of a product being imported or exported.

Unlike other GATT provisions, Article XI refers not to laws or regulations but more broadly to measures. A measure instituted or maintained by a member, which restricts imports or exports, is covered by Article XI, irrespective of the legal status of the measure. In Japan-Semi-Conductors (1988), the panel thus ruled that non-mandatory measures of the Japanese Government, restricting the export of certain semi-conductors at below-cost price, were nevertheless 'restrictions' within the meaning of Article XI:1.

Note that, in addition, quantitative restrictions which do not actually restrict or impede trade, such as quotas above current levels of trade, are nevertheless prohibited under Article XI:1 of the GATT 1994. The panel in EEC-Oilseeds I (1990) ruled in this respect: "The Contracting Parties have consistently interpreted the basic provisions of the General Agreement on restrictive trade measures as provisions establishing conditions of competition. Thus they decided that an import quota constitutes an import restriction within the meaning of Article XI:1 whether or not it actually impeded imports". [3]

***Quantitative Restrictions and Customs Duties***

The WTO has a clear preference for customs duties over quantitative restrictions, and this preference is reflected in the relevant provisions of the GATT 1994. In comparing customs duties with quantitative restrictions, the panel in Turkey-Textiles (1999) noted: "A basic principle of the GATT system is that tariffs are the preferred and acceptable form of protection... The prohibition against quantitative restrictions is a reflection that tariffs are GATT's border protection 'of choice' ". [4]

The reasons for this preference are both economic and political in nature. First, customs duties are more transparent. The economic impact of customs duties on imported products, i.e. how much more expensive imported products are as a result of customs duties, is immediately clear. Quantitative restrictions also increase the price of the imported products. As supply of the imported product is limited, the price increases. However, it is not immediately clear by how much quantitative restrictions increase the price of imported products. As it is less obvious what the negative impact of quantitative restrictions is on prices (paid by consumers and companies using imports), those affected are less likely to mobilise against these measures, and special interest groups are more likely to be able to convince governments to adopt them. Second, and related to the first reason, it is considered easier to negotiate, in successive rounds of negotiations, the gradual reduction of customs duties than it is negotiate the elimination of quantitative restrictions. Third, while the price increase resulting from customs duties goes to the government as revenue, the price increase resulting from quantitative restrictions ordinarily benefits the importers. The importers will be able to sell at higher prices because of the limits on the supply of the product. This 'extra profit' is commonly referred to as the 'quota rent', and, unless a quota is auctioned, no part of this quota rent goes to the government. Fourth, the administration of quantitative restrictions is more open to corruption than the administration of customs duties. This is because quantitative restrictions, and, in particular, quotas, are usually administered through an import-licensing system; import-licensing procedures are often not transparent, and decisions by government officials to award an import licence are not necessarily based on general interest. Finally, and arguably most importantly, quantitative restrictions impose absolute limits on imports, while customs duties do not. While customs duties are surmountable, quantitative restrictions cannot be surmounted. If a foreign producer is sufficiently more efficient than a domestic producer, the customs duty will not prevent imported products from competing with domestic products. By contrast, once the limit of a quantitative restriction is reached, no more products can be imported. Even the most efficient foreign producer cannot 'overcome' the quantitative restriction. Above the quota, domestic products have no competition from imported products. [6.p.488-9]

**METHOD OF RESEARCH**

Analysis of theoretical materials and method of analysis-synthesis

**CONCLUSION**

The results imply that the WTO should follow recent developments in bilateral trade agreements. More precisely, it should shift its focus towards multilateral agreements that aim at limiting the use of NTBs to avoid the increase in hidden protectionism that might otherwise result in lower levels of trade. This also quantifies the trade and welfare gains from deep trade policy commitments. Deep trade agreements (DTAs) have contributed substantially to the overall gains from trade, and continue to be important for many economies, particularly as tariffs have reached low levels. As trends towards deglobalization continue, precise quantification of the potential aggregate gains from deep trade agreements—as provided by this paper—is essential to enable a thorough assessment of alternative trade policies and their concomitant trade-offs.

**REFERENCES**

8. John.C. Beghin, Nontariff Barriers https://ageconsearch.umn.edu/

9. Panel Report, European Communities – Regime for the importation, sale and distribution of bananas- Recourse to Article 21.5 of the DSU by Ecuador, WT/DS27, 1997

10.Panel Report, European Economic Community – Payments and subsidies paid to processors and procedures of oilseeds and related animal-feed proteins, L/6627, 1990

11.Panel Report, Turkey - Restrictions on imports of textile and clothing products, WT/DS34, 1999

12.Panel Report, US - Definitive safeguard measures on imports of circular welded carbon quality line pipe from Korea, WT/DS202, 2002

13.Peter Van den Bossche, Werner Zdouc. The law and policy of the World Trade Organization: text, cases and materials. Cambridge University Press, 2019: 480-89.

14.Report by the WTO Secretariat, Quantitative restrictions: Factual information on notifications received, Committee on Market Access, G/MA/W/114, 2015, paras. 3.2-3.3

# AZƏRBAYCANIN TRANZİT ÖLKƏSİNƏ ÇEVRİLMƏSİ İSTİQAMƏTİNDƏ HƏYATA KEÇİRİLƏN LAYİHƏLƏRİN ƏHƏMİYYƏTİ

**Elvin Əlirzayev Vahid oğlu, i.ü.f.d.**
*Gömrük işi və idarəetmə kafedrasının müdiri, Dövlət Gömrük Komitəsinin Akademiyası*
*Elvin.Alirzayev@ascca.edu.az*

**Cəlal Abasov Murad oğlu**
*Dövlət Gömrük Komitəsinin Akademiyası, Bakı*
*Celal.Abasov@ascca.edu.az*

**Xülasə**

Ulu öndər Heydər Əliyevin yenidən hakimiyyətə gəlməsi ilə sona çatmış və strateji əlverişli geosiyasi mövqedə yerləşən müstəqil Azərbaycanın iqtisadiyyatı, o cümlədən tranzit ölkəsi kimi inkişafında yeni bir dövr başlamışdır.

Heydər Əliyevin diplomatik səyləri sayəsində Azərbaycanın mərkəz rolu oynadığı TRASEKA layihəsi, nəqliyyat-logistika potensialını artıran boru kəmərlərinin tikilməsi, Bakı-Tblisi-Qars dəmiryolu layihəsinin reallaşması Azərbaycanın tranzit ölkəsi olaraq əhəmiyyətini artıran başlıca projelərdir. Müasir dövrümüzdə isə Zəngəzur dəhlizinin yaradılması istiqamətində atılan ciddi addımlar bu potensialın daha da artacağına dəlalət edir.

***Açar sözlər:*** Azərbaycan**,** tranzit, logistika, quruculuq tədbirləri, Zəngəzur dəhlizi

**Siyasi müstəqilliyin bərpası və xarici ticarət siyasətində ilkin addımlar**

II Dünya müharibəsindən sonra başlayan Şərq-Qərb mübarizəsi daha sonra "Soyuq müharibə" adını aldı, bu mübarizənin nəticəsi olaraq 70 illik nəhəng imperiya olan SSRİ parçalandı və ittifaq tərkibində olan respublikalar öz siyasi müstəqilliklərini bərpa etdilər. Öz siyasi müstəqilliyini bərpa edən dövlətlərdən biri də 1991-ci ilin oktyabr ayının 18-də öz dövlət müstəqilliyini qazanmış Cənubi Qafqazda əlverişli mövqedə yerləşən Azərbaycan Respublikası olmuşdur. Dövlət mütəqilliyinin elan olunmasından qısa müddət sonra Azərbaycanda dövlət quruculuğu tədbirləri, habelə, Azərbaycanın beyəlxalq təşkilatlara üzvlüyü və xarici ticarət əlaqələrinin qurulması ilə bağlı ilkin labüd addımlar atılmışdır.

Milli iqtisadiyyatımızın dünya iqtisadiyyatına inteqrasiya olunması və beynəlxalq qurumlarla əməkdaşlıq dövlətimizin iqtisadi inkişaf strategiyasında proritet rol oynamışdır. Bu əməkdaşlıqlar çox şaxəlidir və bir çox istiqamətləri əhatə edir. Yarım əsrdən bir qədər artıq bir qədər artıq müddətdə dünya tarixi səhnəsində olan və iki super gücdən birinə çevrilən "Qırmızı İmperiya" adlanmış SSRİ dağılmasından sonra, tərkibində Azərbaycanın da olduğu dövlətlərin xarici ticarət dövriyyəsi kəskin şəkildə azaldı. Çünki, hər bir dövlət yenidən qurma üçün islahatların labüd olduğu bir dövrü yəni, keçid dövrünü yaşayırdı. Çox təəssüflər olsun ki, dövlət müstəqilliyinin ilk illərində qısa bir zaman kəsiyində bir-birini əvəz edən hakimiyyətlərin səriştəsiz siyasətləri nəticəsində ölkəmiz dünyada və regionda təcrid vəziyyətinə düşdü. Hətta iş o yerə çatdı ki, bəzi yaxın və uzaq ölkələrlə Azərbaycan arasında qarşıdurma vəziyyətinə gətirib çıxara biləcək ziddiyyətlər meydana gəldi.

1993-cü ildə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə gəlməsi nəticəsində ölkə həyatının başqa sahələrində olduğu kimi xarici ticarət siyasət sahəsində də əhəmiyyətli dəyişikliklər baş verdi. Həmin dövrdə yenicə dövlət müstəqilliyini əldə etmiş gənc dövlətin milli maraqlara uyğun və elmi cəhətdən əsaslandırılmış xarici siyasət kursunun işlənib hazırlanmasına və praktik olaraq həyata keçirilməsinə çox böyük ehtiyac vardı. Çox çətin və mürəkkəb dövrdə və əhatədə olan Azərbaycan dövlətinin xarici ticarət siyasət kursunu böyük dövlətçilik təcrübəsi olan, dünyada baş verən siyasi hadisə və proseslərə dərindən bələd olan Heydər Əliyev işləyib hazırlaya bilərdi.

**Xarici investisiyaların ölkəyə cəlb edilməsi adına əhəmiyyətli hadisə**

Dövlətimizin əlverişli geosiyasi və coğrafi məkanda yerləşməsini, Şərqlə Qərb, Şimalla Cənub arasında təbii körpü rolunu oynamasını və eyni zamanda zəngin təbii sərvətlərə, karbohidrogen

ehtiyatlarına malik olmasını nəzərə alaraq Heydər Əliyev neft-qaz və nəqliyyat kommunikasiya layihələrinin işlənib hazırlanmasına və praktik olaraq həyata keçirilməsinə xüsusi əhəmiyyət verməyə başladı. Təbii ki, bu cür nəhəng layihələrin həyata keçirilməsi üçün ilkin şəraitin yaradılması üçün xarici investisiyalar ölkəyə cəlb olunmalı idi və Ulu öndərin rəhbərliyi ilə Azərbaycanın xarici investorlar tərəfindən cəlbedici ölkə halına gətirilməsi üçün siyasi və iqtisadi mühit təmin edildi. Bu cür çətin şəraitdə külli miqdarda birbaşa xarici investisiyanın Azərbaycan iqtisadiyyatına daxil edilməsində əhəmiyyətli rolu olan "Əsrin müqaviləsi"-ni qeyd etməmək mümkün deyilil. Nəticədə, neft və qaz layihələrinin reallaşdırılmasını və onun dünya bazarlarına çıxarılmasını təmin etmək adına bu böyük neft müqaviləsi önəmli addım oldu.

1993-2003-cü illərdə Azərbaycanda həyata keçirilən siyasət iqtisadi islahatların və inkişafın Azərbaycan modelinin formalaşmasına zəmin yaratmışdır. 20 sentyabr 1994-cü ildə Bakı şəhərində Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının birgə istismarı ilə bağlı yüksək nüfuza malik dünya dövlətlərini təmsil edən 12 iri neft şirkəti arasında beynəlxalq müqavilə imzalandı. Dəyəri 7,4 milyard dollar olan "Əsrin müqaviləsi" adlandırılan bu tarixi sənədin imzalanması ilə Azərbaycanın "yeni neft strategiyası" uğurla həyata keçirilməyə başlandı. Artıq Azərbaycan beynəlxalq investisiyaları və ölkə maraqlarının cəlb etməyə nail olaraq, həm regionda güc halına gəldi, həm də bəzi düşmən qonşuların mənfur siyasətini dayandıra bildi.

**TRASECA layihəsi və Azərbaycanın geosiyasi mövqeyinin güclənməsi**

İkinci dəfə siyasi hakimiyyətə qayıtdıqdan sonra Heydər Əliyev dünyada və regionda gedən prosesləri nəzərə alaraq transmilli nəqliyyat-kommunikasiya layihələrinin reallaşmasına da böyük önəm verməyə başladı. Avropa ilə Asiyanı birləşdirən TRASEKA layihəsi hələ qədim zamanlardan mövcud olan "Qədim İpək yolu" marşrutunun yenilənmiş layihəsidir. Ulu öndərin diplomatik səyləri nəticəsində 1998-ci ilin sentyabr ayında Bakıda TRASEKA layihəsinin reallaşması istiqamətində ilk addım atıldı və böyük bir beynəlxalq konfrans keçirildi. Həmin beynəlxalq konfransda 32 ölkənin və 13 beynəlxalq təşkilatın nümayəndələri iştirak edirdilər. Konfrans iştirakçıları TRASEKA layihəsinin texniki və iqtisadi tərəflərini özündə əks etdirən sənəd qəbul etdilər. Sənəd "Avropa-Qafqaz-Asiya" nəqliyyat dəhlizinin inkişaf etdirilməsi üzrə beynəlxalq nəqliyyat haqqında çoxtərəfli əsas saziş adlandırılmışdır.

Niyə TRASECA layihəsi bu qədər öhəm daşıyır? Cavab sadədir, çünki, Çindən və Sarı dənizdən Avropaya qədər uzanan və Avropanı Asiya ilə birləşdirən bu layihə iqtisadi cəhətdən Azərbaycana çox səmərəli və böyük imkanlar təqdim edir. Hazırda Avropa ilə Asiya arasında əsas marşrut kimi Süveyş kanalından istifadə olunur. Avropa ilə Asiya arasında hazırda ticarət dövriyyəsi 2 trilyon, nəqliyyat xərcləri isə 200 milyard dollardır. TRASEKA layihəsinin tam reallaşmasından sonra Avropa ilə Asiya arasındakı yük daşımaları Süveyş kanalı vasitəsi ilə daşınan yüklərdən 20 gün tez Avropaya və əks istiqamətə çatdırıla bilər. TRASEKA layihəsinin əsas marşrutunun Azərbaycan üzərindən keçməsini nəzərə alsaq, gələcəkdə ölkəmizin tranzit ölkə olaraq əhəmiyyətinin necə artacağını təsəvvür etmək heç də çətin deyil.

**Bakı-Tblisi-Qars dəmiryolu layihəsi və təqdim etdiyi imkanlar**

Ümummilli lider Heydər Əliyevin çox böyük əhəmiyyət verdiyi layihələrdən biri də TRASEKA layihəsinin ayrılmaz tərkib hissəsi dünyanın ən böyük transmilli dəmir yolu layihələrindən olan Bakı-Tbilisi-Qars dəmir yolu layihəsinin tikilib istifadəyə verilməsi olmuşdur. Ümumilli lider anlayırdı ki, layihənin reallaşması nəticəsində dəmir yolunun üzərində yerləşən ölkələr çox böyük iqtisadi səmərə əldə edə bilərlər və nəticədə, yükdaşımaların həcminin artması ilə yanaşı, nəqliyyat daşımalarında tətbiq olunan tariflər və rüsumlar aşağı düşəcək və yüklərin çatdırılma vaxtı xeyli azalması təmin olacaqdır.

Qeyd etmək lazımdır ki, digər layihələrin gerçəkləşməsində olduğu kimi Bakı-Tbilisi-Qars dəmir yolu layihəsinin reallaşmasında da bir çox maneələr yaradılmışdır. Dəmiryolu xəttinin tikintisinə 2005-ci ildə başlanması nəzərdə tutulsa da, həmin dövrdə maliyyə mənbələrinin olmaması tikintinin başlanmasını ləngidib. ABŞ və Avropa Birliyi Ermənistandan kənar keçdiyinə görə layihəyə qarşı çıxıblar və tikintinin maliyyələşdirilməsindən imtina ediblər. Onlar Bakı-Tbilisi-Qars dəmiryolunun tikilməsi əvəzinə Qars-Gümrü-Tbilisi dəmiryolu xəttinin açılmasını tələb edirdilər. Lakin Azərbaycan ilə Ermənistan arasında olan Dağlıq Qarabağ münaqişəsi səbəbindən bu tələblər rədd edilib və dəmiryolu xəttinin tikintisinin maliyyələşdirilməsini sonradan Azərbaycan öz üzərinə götürüb. Bu məqsədlə Azərbaycan Gürcüstana ildə 1% faiz dərəcəsi ilə 25 illiyinə 220 milyon dollar kredit verib.

2007-ci ilin fevral ayında Azərbaycan və Gürcüstan respublikalarının prezidentləri Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisinə dair yekun sənədini imzaladılar. Bundan sonra dəmir yolunun tikintisinə start verildi. Bütün bu maneə və çətinliklərə baxmayaraq dəmir yolunun tikintisi uğurla davam etdirilmişdir və 2017-ci il 30 oktyabrda təntənəli açılış mərasimi keçirilmişdir. Azərbaycan üçün dəmir yolunun tikilib istifadəyə verilməsinin bir üstün cəhəti də ondan ibarətdir ki, Türkiyənin Qars şəhərindən Naxçıvana da dəmir yolu çəkilməsi nəzərdə tutulmuşdur.

Bakı-Tbilisi-Qars dəmir yolu Çinin elan etdiyi, Azərbaycan da daxil olmaqla bir sıra ölkələrin dəstəklədiyi "Bir kəmər, bir yol" iqtisadi inkişaf strategiyasının tərkib hissəsinə çevrilir. Bu strategiya iki mühüm inkişaf istiqamətini əhatə edir: 60-dan çox ölkəni əhatə edən İpək Yolu iqtisadi kəməri və Dəniz İpək Yolu. İpək Yolunun uzunluğu 18 min kilometrdir. Söhbət şərqdən qərbə güzəştli şərtlərlə birbaşa malgöndərmələr üçün ticarət dəhlizi yaradılmasından gedir. Bakı-Tbilisi-Qars dəmir yolunu İpək Yolu iqtisadi kəmərinin tərkib hissəsi kimi nəzərdən keçirsək, onun başlıca vəzifəsi Çindən və Cənub-Şərqi Asiyanın digər ölkələrindən Avropaya yüklərin daşınmasıdır. İnamla deyə bilərik ki, bu dəmir yolu qitələrarası daşımalar üçün böyük imkanlar yaradır.

Avrasiyanın nəqliyyat xəritəsini yeniləşdirən Bakı-Tbilisi-Qars dəmir yolu regionda Azərbaycanın çox əhəmiyyətli təsir amili olmaqla onu tranzit daşımalar mərkəzinə çevirir. Bir sözlə, Bakı-Tbilisi-Qars dəmir yolu Avrasiyanın nəqliyyat xəritəsinin önəmli hissəsinə çevrilir. Bu yolun fəaliyyəti nəticəsində yol boyunca yerləşən ölkələr arasındakı ticarət dövriyyəsi və qarşılıqlı sərmayə qoyuluşu artacaq. Bu yoldan istifadə edən bütün ölkələr arasındakı əməkdaşlıq dərinləşəcək. Bu yol sabitliyə və təhlükəsizliyə xidmət göstərəcək.

**Şimal-Cənub nəqliyyat-kommunikasiya dəhlizinin reallaşmasında Azərbaycanın rolu**

Dövlətimiz Azərbaycandan keçərək İran-Rusiya və Avropanı birləşdirən Şimal-Cənub nəqliyyat-kommunikasiya dəhlizinin tam gücü ilə işləməsində maraqlı ölkə olaraq qalmaqdadır. 2001-ci ilin aprel ayında Tehranda Rusiya ilə İran arasında nəqliyyat sahəsində memorandum imzalanmışdır. Həmin sənəddə qeyd olunur ki, Şimal-Cənub nəqliyyat dəhlizinin reallaşdırılması üçün Rusiya-Azərbaycan-İran dəmir yolu marşrutunun tam tikilməsi çox vacibdir. Dəmir yolunun Astara (İran) - Rəşt-Qəzvin hissəsinin tikintisini İran tərəfi öz üzərinə götürmüşdür və hazırda tikinti işləri davam etdirilir. Layihədə İran Astarası ilə Azərbaycan Astarasını birləşdirən dəmir yolu da çəkilməlidir. Qeyd etmək lazımdı ki, Sovet İttifaqı dövründə İranla SSRİ-ni birləşdirən yeganə dəmir yolu Azərbaycan ərazisindən keçərək Naxçıvana, oradan isə İrana gedirdi. Sovet İttifaqı dağıldıqdan sonra həmin dəmir yolunun keçdiyi ərazilərin bir hissəsinin Ermənistan tərəfindən işğal olunması və dəmir yolunun tamamilə dağıdılması nəticəsində həmin dəmir yolu hazırda işləmir. 2011-ci ilin yanvar ayının 31-də Tehranda "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizinin tikilməsi istiqamətində növbəti üçtərəfli görüş (Azərbaycan-Rusiya-İran) başlanmışdır. İki gün davam edən tədbirdə "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizinin tərkib hissəsi olan Qəzvin-Rəşt-Astara (İran) - Astara (Azərbaycan) xəttinin tikintisinə dair birgə müştərək müəssisəsinin təsis olunması, tikintinin layihələndirilməsi və digər məsələlər müzakirə olunmuşdur.

**Azərbaycanın nəqliyyat-logistika potensialını artıran boru kəmərlərinin tikilməsi**

Ulu öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısında ən böyük xidmətlərindən biri də uğurlu neft strategiyasının işlənib hazırlanması və reallaşması oldu. Heydər Əliyevin gərgin əməyi və əzmkarlığı sayəsində Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəməri tikilib istifadəyə verildi. 1999-cu ilin noyabr ayında Türkiyənin İstanbul şəhərində ATƏT-in zirvə sammiti çərçivəsində "Bakı-Tbilisi-Ceyhan" ixrac boru kəməri vasitəsi ilə Azərbaycan, Gürcüstan və Türkiyə ərazilərindən Xəzər dənizindən çıxarılan əsas xam neftin nəqli haqqında" saziş imzalandı. Sazişi prezidentlər Bill Klinton, Heydər Əliyev, Süleyman Dəmirəl və Eduard Şevardnadze imzalamışlar. Həmin layihənin reallaşmasından sonra Bakı-Tbilisi-Ərzurum qaz kəməri layihəsinin reallaşdırılmasına başlanıldı.

Adıçəkilən neft və qaz kəmərlərinin işə düşməsi nəticəsində ölkəmizin gücü artmış, Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında rolu güclənmişdir. İndiyə qədər Azərbaycana 90 milyard dollar investisiya qoyulmuşdur ki, onun 50 milyardı xarici investorların payına düşür. 2011-ci ildə Azərbaycanda 51 milyon ton neft hasil olunubdur ki, onun da 45 milyon tonu ixrac olunmuşdur. Ulu öndər Heydər Əliyevin uğurlu neft strategiyasının reallaşması nəticəsində hazırda Azərbaycan regionun ən güclü və dinamik inkişaf edən, özünün enerji tələbatını tam təmin edən və heç bir ölkədən asılı olmayan bir ölkəyə çevrilmişdir.

**Azərbaycan tranzit ölkəsi kimi öz potensialını inkişaf etdirməyə davam edəcək**

Nəzərdən keçirdiyimiz islahat və layihələr bir daha sübut edir ki, Azərbaycan ərazisindən keçən beynəlxalq nəqliyyat marşrutlarının iqtisadi potensialı olduqca yüksəkdir. Bu sahədə görülən işlər son illər ölkəmizin Avrasiyanın önəmli nəqliyyat-logistika qovşağına çevrilməsini təmin edib. Azərbaycan Respublikasında logistika və ticarətin inkişafına dair Strateji Yol Xəritəsi də təsdiq edir ki, ölkəmizin bu istiqamətdə irimiqyaslı hədəfləri olan konkret siyasəti var.

Bu yöndə gerçəkləşdirilən kompleks layihələr regional tranzit yüklərin Azərbaycan nəqliyyat dəhlizinə cəlb edilməsi ilə əlavə dəyər yaradılmasına nail olmağı, regionda bu sahə üzrə daha cəlbedici ölkəyə və beynəlxalq qovşağa çevrilməyi nəzərdə tutur. Reallıq ölkəmizin bu hədəflərə doğru inamla irəlilədiyini göstərir.

Bütün bunlar onu deməyə əsas verir ki, ölkədə infrastruktur obyektlərinin yaradılması, multimodal logistika sistemlərinin təkmilləşdirilməsi etibarlı və təhlükəsiz nəqliyyat sisteminin fəaliyyəti, respublikamızın ərazisindən keçən nəqliyyat dəhlizlərinin inkişafı ölkəyə valyuta axınına, əhalinin məşğulluq səviyyəsinin artırılmasına, turizmin inkişafına, ümumilikdə Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun yüksəlməsinə səbəb olacaq.

**Zəngəzur dəhlizi qapıdadır: çətinliklər və perspektivlər**

Şimal-Cənub və Şərq-Qərb marşrutlarının kəsişmə nöqtəsinə çevriləcək Zəngəzur dəhlizi Sakit okean və Atlantik okeanları arasında ən qısa quru nəqliyyat yoludur. Avropa və Asiyanı birləşdirən quru nəqliyyat marşrutlarının fəaliyyətini əhəmiyyətli dərəcədə genişləndirəcək. Xəzər-Qara dəniz regionunun xəritəsini daha geniş miqyasda nəzərdən keçirsək, görərik ki, Uzaq Şərqə, eləcə də Qərbə gedən ən ideal marşrut Türkiyə-Cənubi Qafqaz-Xəzər regionundan keçir. Bu marşrutların işlək olması üçün xüsusilə Azərbaycanın iştirakı mütləqdir. Azərbaycandan keçən marşrutlar şəbəkəsinin Türkiyəyə, oradan da Avropaya çatması üçün bir neçə variant var: Gürcüstan, Ermənistan və İran. Məsafə baxımından ən sərfəli tranzit ölkə Ermənistan olsa da, İrəvanla Bakı arasında uzunmüddətli münaqişə onun bütün layihələrdən kənarda qalmasına səbəb olub. Bu boşluğu zaman-zaman Gürcüstan və İran doldurub. Şübhəsiz ki, yeni dəhlizin yaradılması bu marşrutların əhəmiyyətini xeyli azaldacaq. Qeyd edək ki, İranın bəzi media agentləri arasında bu dəhlizin açılması ilə Tehranın aşağıdakı risklərlə üzləşəcəyi iddia edilir. İran vasitəsilə Naxçıvana göndərilən 350 milyon kubmetr qazın 15 faizini Azərbaycan tranzit haqqı kimi ödəyirdi. Yeni dəhlizin açılması ilə İran bu qazancını itirə bilər. 1996-cı ildə Türkiyə ilə İran arasında qaz alqı-satqısı müqaviləsi imzalanıb. Həmin müqavilə əsasında Türkiyə illərdir İrandan qaz alır. Türkiyə min kubmetr qaza görə İrana 490 ABŞ dolları ödədiyi halda, eyni məbləği Azərbaycandan 335 ABŞ dollarına ala bilər. Bu dəhliz vasitəsilə Azərbaycandan Türkiyəyə qaz kəməri çəkilərsə, İranın qaz gəlirlərinin itkisi böyük ola bilər. Türkmənistandan İrandan keçməklə Türkiyəyə, oradan da Avropaya keçməsi planlaşdırılan qaz kəməri layihəsi maliyyə anlaşmazlıqlarına görə 2017-ci ildə dondurulub. Türkmənistan indi bu qazı Azərbaycan vasitəsilə Avropaya çatdıra bilər.

**Nəticə**

Əsası Ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş enerji siyasətinin nəticəsi kimi Azərbaycan bu sahədə regional enerji mərkəzinə çevirmişdir. Ulu öndərin ideyalarından olan tarixi İpək Yolunun bərpası üzrə aparılan işlər hal hazırda Azərbaycanı regional transit qovşağına çevirmişdir. Gömrük işinin müasir tələblərə uyğun strukturlaşması, onu regionda nümunəvi gömrük modelinə çevirmişdir. Ümumdünya Gömrük Təşkilatının rəhbərliyinin son illərdə daha sıx bir şəkildə Bakıda yerləşən Potensialın Artırılması üzrə Avropa Regionu Ofisinin, eləcə də Dövlət Gömrük Komitəsinin Akademiyası daxil olmaqla bir neçə gömrük orqanlarının fəaliyyəti ilə maraqlanması bunun sübutudur. 1995-ci ilə görə Azərbaycanın Ümumi Daxili Məhsulunun 62 dəfədən çox artaraq 2022-ci ildə 133,8 milyard manata yüksəlməsi və bunun yarıdan çoxunun (51,1%) sənayenin payına düşməsi, əsası Ulu öndər tərəfindən qoyulmuş düzgün iqtisadi siyasətin nəticəsi və cənab prezident İlham Əliyevin həmin kursda əzimlə dayanmasının ən aydın nümunəsidir. Ümummilli liderin bütöv siyasətini müasir şərtlərə uyğunlaşdıraraq uğurla icra edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi ilə ölkənin gələcək perspektivliyindən əminliklə danışmaq mümükündür. Ruhun şad olsun, Ulu öndər!

**Ədəbiyyat siyahısı**

- Əli Həsənov. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. "Azərbaycan" nəşriyyatı (Kitab). Bakı/Azərbaycan. 2005:1-631
- Əliqismət Bədəlov, https://xalqqazeti.com/az/news/924, (**online məqalə**)
- Hicran Xəlilova, Guam çərçivəsində Azərbaycan – Ukrayna münasibətləri, Uluslarası Türk Dünyası Araştırmaları Dergisi (**Jurnal məqaləsi**), Həcm 1, Çap 1, İyul 2018, Səhifələr 1-10
- Tahir Budaqov, https://www.stat.gov.az/news/index.php?id=4213, (**online məqalə**)
- Röfət Quliyev. Azərbaycan dövlətçiliyi tarixində gömrük işi. Turxan Nəşriyyat-Poliqrafiya Birliyi (**Kitab**), Pages 703-709 Bakı/Azərbaycan. 2015:1-448

# DISTINGUISHING CRITERIA BETWEEN ADMINISTRATIVE CONTRACTS AND PRIVATE LAW CONTRACTS OF THE ADMINISTRATIVE BODY

**ZEYNAB QƏNBƏROVA**
Bakı Dövlət Universiteti
Hüquq fakültəsi
*zeynabqanbarova@gmail.com*
BAKI, AZƏRBAYCAN

**SUMMARY**

In the article the criteria for distinguishing the administrative contracts of the administrative body from other contracts of the administrative body, which are relatively new areas of administrative law, are examined. In the study, the definition of administrative contract and special legal contracts of administrative body was given, the "organic" and "material" criteria used in their differentiation were discussed separately, and examples of the use of those criteria in court decisions were mentioned.

**Key words:** administrative contract, pecial legal contracts of administrative body, administrative body

**Introduction**

In administrative law, the issue of the system, place, legal regime, and differentiation criteria of the contracts of the administrative body is controversial. There are different opinions and theoretical approaches to it. Generally, in legal systems where public law and private law are distinguished, the main feature of administrative law, which is a part of public law, is that the administrative body can make unilateral decisions using its authority. In addition, when the state body performs its public function, it is impossible to obtain the goods and services it needs through unilateral administrative decisions. At this time, the state body can conclude a contract with private individuals to buy the goods it needs or provide the services ( Vasiljević, 2019**;** Başpınar, 1968). This article contains information on the nature of administrative contracts and private contracts of the state body and their main features.

Contracts concluded by the administrative body are grouped into "private law contracts of the administrative body" and "administrative contracts" in terms of the legal regime to which they are subject. These two groups, besides having different meanings, suggest that every contract concluded by an administrative body is not an administrative contract. The contracts concluded by the administrative body according to the rules of administrative law, as well as the disputes arising from such contracts are considered in administrative courts and are called administrative contracts

(Vasiljević, 2019**;** Odyakmaz, 1998). In administrative contracts, the administrative body is not on an equal footing with the other party, some superior rights and duties of the administrative body can be stipulated in the contract. In the special legal contracts of the administrative body, the administrative body and the other party are in an equal position, the content of the contract is determined by the parties together. Since the contracts of the administrative body are essentially different, the rules for resolving disputes arising from them and determining the court to be heard will also be different. As it can be seen, special legal contracts and administrative contracts of the administrative body have essentially different contents.

These are the main questions investigated in the thesis: How to determine whether the contract concluded by the administrative body is an administrative contract or a special legal contract? What are the main characteristics of these types of contracts?

The objective of this research is to investigate the main features of administrative contracts, which are the main institutions of administrative law, that distinguish them from other contracts. For this purpose, in the research will be used doctrinal analysis and comparative research.

To collect doctrinal data, an extensive analysis of relevant legislative acts, case law, and scientific literature related to administrative contracts will be conducted. This review will cover a variety of sources, including legislation, legal interpretations, and court decisions, to identify the key features of administrative contracts.

The analysis of administrative contracts in relation to Turkish and French jurisdictions will be another key aspect of this research. When conducting a comparative study through the legal literature of the mentioned countries, the concept of administrative contracts, the main differentiation criteria, and their characteristics will be touched upon. In this sense, the comparative analysis will be facilitated through the examination of the relevant legislative provisions, judicial practice, and scientific works of the French and Turkish jurisdictions.

**1. The definition of private contracts and administrative contracts.**

The legal definition of the contract is given in the Civil Code of the Republic of Azerbaijan. Thus, a contract is a bilateral or multilateral expression of will aimed at the creation, modification, or termination of a civil law relationship. The conclusion of the contract requires an agreed expression of the will of two parties (bilateral agreement) or an agreed expression of the will of three or more parties (multilateral agreement). (Civil Code of the Republic of Azerbaijan) Although a number of contracts in private law are stipulated by law, some of them are not regulated by law. In other words, this means that the parties can conclude a contract other than the types of contracts specified in the law. According to the theory, the contract is based on mutual and compatible declarations of the will of the parties aimed at a certain legal result (Eren, 2003).

As can be seen, the normative basis of contractual relations is based on civil legislation. In contrast to the fact that special legal contracts are subject to civil law norms, we can say that administrative contracts are partly regulated by law, and mostly formed based on court presidents. It is this situation that makes it necessary to apply some superior force in the performance or non-performance of the contract. In administrative contracts, the administrative body takes place as a legal entity and as a representative of the public interest. The other party to the contract is a natural or legal person representing his interest (Vasiljević, 2019**;** Ayhan, 1979). For this reason, in an administrative contract, public interest takes precedence over private interest, so it is subject to a different legal regime than private law contracts, i.e. administrative legal regime. The second issue is related to the determination of jurisdiction under disputes between the parties. Disputes arising from special legal contracts of the administrative body are considered in general courts, and disputes arising from administrative contracts are considered in administrative courts (Tan, 1993).

Theoretical representatives of different countries have expressed different opinions about the nature of the administrative contract. According to the French scholar Léon Duguit, there is no difference between administrative contracts and private law contracts, because contracts always have the same characteristics and provisions in terms of substance and elements. According to this opinion, there is no separate type of administrative contract apart from contracts concluded between private individuals. The only difference between these contracts may be that administrative courts will be competent in disputes that may arise because they are aimed at public service purposes (Kesici, 2009).

According to another French scholar, Gatson Jezé, since the parties in administrative contracts are not of equal status, the administrative body is in a superior position as the party exercising the powers of authority. Jeze, who claims that the concept of an administrative contract derived from court decisions and its implementation is autonomous, notes that the effects and consequences of these contracts are different from private law contracts (Kesici, 2009).

André de Laubadére emphasizes that the concept of the contract and its characteristic features should not be compared and notes that one of the parties to the administrative contract is an administrative body with regulatory authority that can make unilateral decisions. He, like his colleague Jeze, claims that the understanding of the contract as a concept does not change in public law and private law, and emphasizes that the will of the parties in administrative contracts is not equal (Kesici, 2009).

The problem regarding the definition and nature of the administrative contract arises in the phrase itself. While the term “administrative” directly refers to a special legal regime whose content is determined by the principles and rules of public law, “contract” is the typical and basic concept of private law. Therefore, the coming together of these two means the meeting and merging of two different legal understandings/approaches (Tekinsoy, 2006).

**2. Creation of administrative contracts.**

The most developed approaches and theories related to administrative contracts are precisely in France. The French administrative law mentions various features of administrative contracts. These dimensions and signs have been determined, such as the inequality of the parties for the sake of public interest, the right to change the terms of the contract to be given to the public authority, the possibility of imposing an additional fine on the subject of special law for non-fulfillment of the obligations, and the possibility of changing the terms of the contract unilaterally ( De Laubadere, André, De Moderne, Franck, Delvolve Pierre, 1983).

Whether the contract to which the administrative body is a party is subject to private law or public (state) law is a matter determined based on the essence of the contract (Mehdiyev, 2009). For the contract concluded by the state body to be considered an "administrative contract", it is important to have certain creations.

Traditionally, in determining the nature of the contract, organic and material criteria are used to reach a conclusion based on evaluations regarding the parties, subject, and content of the contract. While the fact that one of the parties is a public legal entity constitutes the organic criterion, the fact that the contract relates to public service and contains provisions that exceed private law is evaluated within the framework of the material criterion (Tekinsoy, 2006).

**2.1. Organic criteria.**

As in all contracts of an administrative body, it is normal for one of the parties to be an administrative body in administrative contracts. For this reason, the requirement of an administrative authority (body) does not serve as a distinguishing criterion for administrative contracts and private law contracts. However, this condition is a first condition that can be considered as an organic criterion of the administrative contract in general.

Although the public administrative body requirement is a fundamental feature, two problems must be addressed in this regard:

The first of these is the agreements made by administrative bodies among themselves. As a rule, it should be considered whether these contracts are considered administrative contracts if they are subject to the authority of the two parties. In French and Turkish legislation, it is accepted that contracts concluded between administrative bodies can be administrative contracts (Tekinsoy, 2006).

One of the cases of the Council of State (is the administrative court of Turkey) accepted that the electrical energy purchase and sale agreement signed between the Turkish Electricity Authority and the Turkish Nitrogen Industry was an administrative contract. In this decision of the Council of State, after determining that one of the parties must be an administration, it is seen that it concluded that the contract is an administrative contract, based on the fact that electricity production, transmission, distribution, and trade are public services (Tekinsoy, 2006).

The second problem is whether contracts made between private law persons can have an administrative nature.

The general rule is that a contract between two private persons is a private law contract. However, with its decision dated 1963, the French Court of Jurisdictional Disputes accepted that the contract between the mixed economic structure company, which is the highway concessionaire, and the contractor was an administrative contract. The court accepted that although these companies were private legal entities, they acted on behalf of the state, and took into account that the general highway construction belonged to the state and that the mixed economy company performed public services (Prevost, 1971)

**2.2. Material criteria.**

The material criterion is used to determine the legal regime to which the contract will be subject, based on the nature of the relationship regulated by the contract and the provisions of the contract. In this context, two basic criteria are used in French judicial decisions to distinguish administrative contracts: the public service criterion and the criterion of conditions exceeding private law.

With the Blanco decision of the French Court of Jurisdictions dated February 8, 1873, the theory of sovereignty acts - representation acts was abandoned and began to be used in determining the field of public service administrative law. The separation of administration contracts into private law contracts and administrative contracts stems from this jurisprudence. In line with the principles established by the Blanco decision, public service was used for the first time in the definition of administrative contract in the Terrier decision dated February 6, 1903 (Richer, 1999). The case arose from the promise of a reward for the head of a snake killed in order to combat vipers. In this decision, it was decided that there was no dominance exercise, the activity was a public service and the contract was an administrative contract. However, this decision also includes a reservation regarding the impact of the public service on the nature of the contract. Accordingly, the administration may choose to remain in the field of private law at its own will while carrying out public services.

The second important decision on this issue is the Thérond decision of the Conseil d'Etat dated March 4, 1910. With this decision, the contract made to capture stray dogs and place them in animal shelters and to assign the task of collecting dead animals to a private person was qualified as an administrative contract (Prevost, 1971).

In relation to the condition of exceeding private law the first famous decision used in determining the nature of the contract was the Granits des Vosges decision of the Conseil d'Etat dated 31 July 1912 (Pequignot, 1953). It has been accepted that the contract subject to the decision does not qualify as an administrative contract because it does not involve the private company performing any public works and its only subject is the provision of materials within the framework of the rules and conditions of contracts made between private persons: According to the new criterion introduced by the decision, the administrative contract is now for the purpose of public service. It will be defined according to the provisions contained in the contract, not by its existence.

As a general evaluation, it should be determined that the approach of the judicial bodies to the administrative contract is determined within the framework of public service. In this context, the provision of public service by a private person or the participation of a private person in the execution of public service comes to the fore.

Characterizing a contract as an administrative contract does not have a formal nature and does not produce formal consequences. The fact that the contract is accepted as an administrative contract is not actually a determination about the contract as a form, but about the nature of the relationship established and regulated by the contract. The basic and simple question in determining the nature of the contract should be: Is the relationship regulated by the contract an administrative law relationship? Firstly, we need to determine this (Eren, 2003).

The fact that the contract contains terms that exceed private law cannot be considered as a definitive criterion. Describing the conditions that exceed private law as conditions that are "attributable to the privileges of public power" rather than as conditions that are not unusual or uncommon in private law does not solve the problem.

As a result, it should be noted that although there is no clear system that distinguishes administrative contracts from other contracts of the administrative body, there are a number of criteria for its differentiation. The question of which of the above-mentioned criteria is decisive will always remain open. Because in a specific type of contract, the characteristics of each criterion should be taken into account. Sometimes, those criteria should be evaluated comprehensively.

**Reference:**

1. Ayhan, Ö. (1979). Administrative contracts. *Danıştay Jurnal*, *32/33*, 93-105.
2. Başpınar, R.(1968) Cases arising from administrative contracts, Yüzyıl Boyunca DanıştayJournal
3. Civil Code of Republic of Azerbaijan https://e-qanun.az/framework/46944
4. De Laubadere, André, De Moderne, Franck, Delvolve Pierre. (1983). *Traité des contrats administratifs.* LGDJ.
5. Eren, F. (2003) Law of Obligations General Provisions, Vol. l, Revised 5th Edition, İstanbul
6. Kesici, F.S. (2009). *Types, scope, and judicial review of administrative contracts. [Unpublished master's thesis]*. İstanbul Universiteti Sosial Bilimler Enstitusu.
7. Mehdiyev, F. (2010). *Administrative law textbook.* Qafqaz University Publications
8. Pequignot, G. (1953) Des contrats administratif , Extrait du JCA , fasc. 500
9. Prevost, J.F. (1971) A la recherche du critère du contrat administratif (La qualité des contractants) , R.D.P.
10. Odyakmaz, Z. (1998) Contracts of the administration in general. Gazi University Law Faculty Journal, 2/1-2
11. Richer, L. (1999) : Droit des contrats administratifs, 2e Edition, L.G.D.J.
12. Tan, T. (1993) Proceedings of the Administration in the Field of Special Law Abstracts of the 11th National Administrative Law Congress, Ankara
13. Tekinsoy, A. (2006) Criterion problem in administrative contracts. Ankara University Faculty of Law Journal
14. Vasiljević, A. (2019). Administrative contract as a new legal institution in the law on general administrative procedure of the Republic of Serbia. Thematıc Conference Proceedıngs of Internatıonal Sıgnıficance 9/2

# PASİYENTİN HÜQUQLARI VƏ BU HÜQUQLARIN POZULMASINA GÖRƏ MƏSULİYYƏT

**Mirəli Seyidov**
Dövlət Gömrük Komitəsinin Akademiyasının
Hüquqşünaslıq ixtisası üzrə 3-cü kurs tələbəsi

**Xülasə**

Tibbin imkanlarının bu dərəcədə genişləndiyi bir dövrdə təbii olaraq pasiyentlərin müsbət yöndə gözləntiləri də artmaqdadır. Bu isə öz növbəsində tibb sahəsində çalışan şəxslərin, xüsusən də həkimlərin son dərəcə təcrübəli və peşəkar olmasını ön şərt olaraq tələb edir. Həkimlərdən işlərinə məsuliyyətli yanaşmasını və istənilən halda ziyan vuracaq hərəkətlərdən çəkinməsini tələb etmək pasiyentlərin hüquqlarıdır. Onların bu hüquqları pozulduqda həkim təbii olaraq məsuliyyətə cəlb olunur. Lakin həkimin işi həmişə müsbət nəticə verməyə bilər. Bəzən həkim nə qədər peşəkar olsa və işinə məsuliyyətlə yanaşıb əlindən gələni etsə də təbii risklərdən dolayı arzuolunmaz nəticələr hasil ola bilər. Bu səbəbdən "həkim səhvi" və "təbii risk" anlayışı daxil olmaqla pasiyentin bu münasibətlərdə hüquqlarından, bu hüquqların pozulduğu zaman qarşı tərəfin məsuliyyəti və hüquqların müdafiəsi mexanizmi ilə bağlı məzmunlu araşdırma aparmaq olduqca vacibdir.

**Açar sözlər:** Pasiyentin hüquqları, həkim səhvi, təbii risk, zərərə görə məsuliyyət

Summary

At a time when the possibilities of medicine are expanding to such an extent, the expectations of patients are naturally increasing in a positive way. This, in turn, requires the people working in the medical field, especially doctors, to be extremely experienced and professional as a prerequisite. It is the right of patients to demand that doctors take a responsible approach to their work and refrain from harmful actions in any case. When their rights are violated, the doctor is naturally held responsible.

But the doctor's work may not always have a positive result. Sometimes, no matter how professional the doctor is and how responsibly he does his work, undesirable results may occur due to natural risks. For this reason, it is very important to carry out a substantive study of the patient's rights in these relationships, including the concept of "doctor's error" and "natural risk", the responsibility of the other party when these rights are violated, and the mechanism of rights protection.

Keywords: Patient's rights, doctor's error, natural risk, liability for damage

Краткое содержание

В то время, когда возможности медицины расширяются до такой степени, ожидания пациентов закономерно возрастают в положительную сторону. Это, в свою очередь, требует, чтобы люди, работающие в медицинской сфере, особенно врачи, были чрезвычайно опытными и профессиональными. Пациенты имеют право требовать от врачей ответственного подхода к своей работе и в любом случае воздерживаться от вредных действий. Когда их права нарушаются, ответственность, естественно, несет врач. Но работа врача не всегда может иметь положительный результат. Иногда, насколько бы профессионален ни был врач и насколько ответственно он выполнял свою работу, из-за естественных рисков могут возникнуть нежелательные результаты. По этой причине очень важно провести предметное исследование прав пациента в этих отношениях, включая понятия «ошибки врача» и «естественного риска», ответственности другой стороны при нарушении этих прав, а также механизм защиты прав.

Ключевые слова: права пациента, ошибка врача, естественный риск, ответственность за ущерб.

## GİRİŞ

Qanunvericiliyimizin əsası olan və insan hüquqlarına ali dəyər verən Konstitusiyamızın 41 -ci maddəsində qeyd olunur:

41/ I - *Hər kəsin sağlamlığını qorumaq və tibbi yardım almaq hüququ vardır. [3]*

İnsanın sağlam olması və sağlam ətraf mühitdə yaşaması demək olar ki, onun ən vacib hüququdur. Çünki əgər bu hüquq dövlət tərəfindən təmin olunmazsa digər hüquqlar çox yüksək səviyyədə təmin olunsa belə artıq şəxs digər hüquqlara marağını itirə bilər. Çünki insan təbiəti dolayısı ilə həyat və sağlamlığına digər hər şeydən daha çox dəyər verir. Hətta insan beyni sırf bu sistem üzərinə qurulub - istənilən halda beynin ən böyük hissəsi olan frontal lob-sağ qalmaq üçün digər hər şeyi "göz ardı" etməyə hazırdır. Hüquq sistemi üçün də başlanğıc nöqtəsi məhz belə qurulub - sağ və sağlam olduqdan sonra digər hüquqlar həyata keçirilə bilər.

## HƏKIM KIMDIR? (HƏKIMIN HÜQUQ SUBYEKTLIYI)

Vikipediyaya görə Həkim - ali tibb təhsili olan, bu sahədə əldə etdiyi bilik və bacarıqlarını insanların xəstəliklərinin müalicəsinə, insan sağlamlığının qorunması və saxlanılmasına həsr edən insan. *[19]*

"Səhiyyə sahəsinə aid olan qulluqçu vəzifələrinin və fəhlə peşələrinin Vahid Tarif-İxtisas Sorğu Kitabçası"nın təsdiq edilməsi barədə AR Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliyinin kollegiyasının 19 iyun 2017-ci- il tarixli qərarına əsasən :

HƏKİM-MÜTƏXƏSSİS - Öz ixtisası üzrə müasir profilaktika, diaqnostika, müalicə və reabilitasiya üsullarından istifadə etməklə əhaliyə tibbi yardım göstərir. Öz işini planlaşdırır və təhlil edir. Təcili və təxirəsalınmaz tibbi yardım göstərir. Həkim etikası və deontologiyası prinsiplərinə riayət edir. Orta tibb heyətinin işinə rəhbərlik edir. *[4]*

Verilən analayışlar doğrultusunda qeyd edə bilərik ki, həkim insanlara xəstəlikləri və tibbi ehtiyacları ilə bağlı yardım edən kimsədir. Hər bir anqlosakson hüquq sistemli ölkə kimi - həkimin vəzifə və məsuliyyətləri ilə bağlı AR qanunvericiliyində də göstərişlər vardır.

Bu göstərişlərdən ilki və ən vacibi ilkin tibbi yardım göstərməkdir. Heç bir həkim (özəl tibb müəssisəsində fəaliyyət göstərsə belə) ehtiyacı olan şəxslərə ilkin tibbi yardım göstərməkdən boyun qaçıra bilməz. Hətta əgər belə bir hərəkətsizlik edərsə cinayət məcəlləsinin 142-ci yəni, xəstəyə kömək göstərməməklə bağlı olan maddəsi ilə məsuliyyətə cəlb olunacaqdır. İlkin tibbi yardımdan fərqli olaraq- həyati əhəmiyyət daşımayan və təciliyi olmayan hallarda həkim müdaxilədən çəkinə bilər. *[5]*

Bundan əlavə -AR Konstitusiyasının 41-ci maddəsinin 2-ci hissəsində göstərilir ki - *Dövlət müxtəlif mülkiyyət növləri əsasında fəaliyyət göstərən sahiyyənin bütün növlərinin inkişafı üçün zəruri*

*tədbirlər görür, sanitariya-epidemiologiya salamatlığına təminat verir, tibbi sığortanın müxtəlif növləri üçün imkanlar yaradır.[3]*

Həkimin pasiyentə qarşı öhdəlik və məsuliyyətləri öz -özlüyündə 2 -əsasla yaranır.

1. Mənəvi əsaslar ilə
2. Sanksiya əsasları ilə

**HƏKİMİN MƏSULİYYƏTİ**

Həkimliyin mənəvi əsaslarında qədim tarixə sahib olan "Hipokrat andı" durur . Hətta AR qanunvericiliyndə Hipokrat andına xüsusi maddə həsr olunmuşdur -"Əhalinin sağlamlığının qorunması haqqında" qanunun 52-ci maddəsində göstərilir - ***Azərbaycan Respublikasının ali tibb təhsil müəssisələrini bitirmiş və həkim diplomu almış şəxslər "Hippokrat andı" içirlər. Həkim andını pozan həkimlər qanunla müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.****[20]* Mövzu ilə yaxından əlaqəsini nəzərə alaraq Hipokrat andının mətnini və əsas 9-prinsipdən müasir tələblərə cavab verənləri ələ almağı vacib hesab edirik.

- *...verdiyim sözə və götürdüyüm öhdəliklərə gücüm və dərrakəm çatdığı qədər əməl edəcəyəm* - andın başlanğıcında qeyd olunmuş bu ifadə müasir qanunvericilyin əsasında duran bir göstərişdir. Həkimin bütün xəstəliklər və problemlərlə bağlı uyğun bir refleksinin olmaması çox təbidir. Çünki təbabət elmi o qədər genişdir ki, insan ömrü onu tamamən öyrənməyə kifayət etmir. Bu səbəbdən hər bir həkimin ixtisaslaşdığı müəyyən bir sahə olur.

Həkim ixtisaslaşmadığı sahə ilə bağlı diaqnoz qoymamalı və müdaxilə etməməlidir -təbii ki, əgər ilkin tibbi yardım kimi zəruri müdaxiləyə ehtiyac yoxdursa. Digər hallarda heç kim həkimi məlumatsız olduğu sahə ilə bağlı müalicəyə məcbur edə bilməz.

- *Gücüm çatdığı qədər müalicəmi heç bir vaxt pislik üçün deyil, kömək üçün istifadə edəcəyəm* - Həkim istənilən halda müdaxilə edərkən pasiyentin mənfəətini güdməlidir. Pasiyentə zərər vuracaq bütün hərəkətlərdən çəkinməlidir. Əks halda həkimin məsuliyyətinin bir digər əsası olan sanksiyalar gündəmə gəlir.

*-Məndən istifadə üçün zəhər istəyənə onu verməyəcəyim, belə bir hərəkət tərzini belə tövsiyə etməyəcəyəm* - bu müddəa isə daha çox evtanaziyanı xatırladır. Evtanaziya -(yun. εὖ — yaxşı + yun. θάνᾰτος — ölüm) — sağalmaz xəstəlikdən əziyyət çəkən insanı və ya heyvanı həyatdan məhrum etmə təcrübəsi mənasına gəlməkdədir. Hipokrat andının bu hissəsində də qeyd olunur ki, kimsə ondan zəhər-yəni ölüm istəsə belə ona bunu vermiyəcəm. Bu isə müasir cinayət hüququnda yer alan evtanaziya müddəsı ilə üst üstə düşür.*[21]*

- *...hansı evə daxil olaramsa, ancaq xəstənin xeyrini düşünəcəyəm, qəsdli olan bütün pisliklərdən qaçacağam, istər azad, istər kölə olsun, kişi və qadınların bədənini sui-istifadə etməkdən çəkinəcəyəm* - bu müddə isə yuxarıdakı müddəa ilə oxşarlıq təşkil etsə də, daha çoxunu ifadə edir. Burada bədənlərdən sui -istifadəyə qarşı mövqe formalaşdırılmışdır, hansı ki, bu hal müasir hüququmuzda bəzi istisnalar xaric, orqan implantasiyasına icazə verilməməsi halı ilə oxşarlıq təşkil edir.

- *İstər sənətimin icrası, istərsə də sənətim xaricində insanlarla münasibətdə baş verənləri, görüb eşitdiklərimi bir sirr olaraq saxlayacağam və kimsəyə açmayacağam*- bu müddəa isə hipokratın yaşadığı dövr üçün olduqca qabaqcıl bir mövqe olmaqla günümüzə qədər gəlib çıxmış və hüquq sistemimizdə də öz yerini "Həkim sirri" olaraq möhkəmləndirmişdir. ***"Əhalinin sağlamlığının qorunması haqqında" Qanununun 29-cu və 53-cü maddələrinə görə*** şəxsin tibbi yardım üçün müraciət etməsi faktı, onun xəstəliyinin diaqnozu, sağlamlığının vəziyyəti, müayinə və müalicə vaxtı əldə edilən digər məlumatlar, süni mayalanma, embrionun implantasiyası, eləcə də donorun şəxsiyyəti barədə bilgi həkim sirrini təşkil edir. *[20]*

Beləliklə həkim məsuliyyətinin mənəvi əsasları onlar fəaliyyətə başlayarkən and içdikləri Hipokratın müddəalarında əks olunmuşdur. Bu müddəalar hər nə qədər antik yunan mədəniyyətini özündə əks etdirsə və bəzi deformasiyalara məruz qalsa da bir həkimin etik davranışları üçün ən mühim sayılan prinsipləri də özündə ehtiva edir.

Həkimlər də səhvə yol verə biləcəyindən və peşələrinin xüsusən əhəmiyyətli olan insan həyatı üzərinə qurulu olmasından dolayı qanunvericilik həkimin xüsusən diqqətli olması üçün bütün profilaktiki tərbirləri almaqla yanaşı çəkindirmə tədbirləri (yəni sanskiya ) də müəyyənləşdirmişdir.

Profilaktiki tədbir olaraq -Həkim olmağa qoyulan xüsusi tələbləri misal göstərə bilərik. Dünyanın istənilən ölkəsində tibb təhsili uzunmüddətliliyi, tədris proqramının çətinliyi ilə digər ixtisaslardan fərqlənir. Ölkəmizdə də tibb təhsili almaq istəyənlər 6 il bakalavr, sonra isə ixtisasdan asılı olaraq, 2

ildən 5 ilə qədər rezidentura təhsili almalıdırlar. Bakalavr illərində tələbəyə həm kliniki, həm də baza fənləri tədris edilsə də, rezidentura oxumayan məzun ixtisas sahibi ola bilmir. Məzun rezidenturaya qəbul olunmaq üçün baza və kliniki fənlərdən olmaqla, ikimərhələli imtahan verməli olur. Daha sonra isə imtahan balının ardıcıl olaraq yazdığı ixtisas və plan yerlərinə uyğunluğu yoxlanır və məzun hər hansı ixtisasa qəbul olunur. O, rezidentura müddətində qəbul olunduğu ixtisas üzrə bilik və bacarıqlara yiyələnir. *[22]*

### 1.3.1. HƏKİMİN İNZIBATİ MƏSULİYYƏTİ

Hüquqi araşdırma tələb edən əsas məsələ isə həkim məsuliyyətinin sanksiyalarla müəyyənləşdirildiyi, yəni cinayət və inzibati xətalarla bağlı qanunvericilikdə həkimlə bağlı olan normalardır. Bu normaların hər biri xüsusi təhqiqat tələb etdiyindən onların hər biri haqqında qısa da olsa məlumat vermək vacibdir.

Daha yüngül sanksiyaların müəyyənləşdirildiyi İnzibati Xətalar məcəlləsindən başlamalı olsaq - ***162, 162-1, 163, 215, 215-1, 221.9, 226*** - maddələrinin xüsusən həkimin fəaliyyəti ilə bağlı olduğunu qeyd etməliyik. *[10]*

162-ci maddə **Qanın, qan komponentlərinin donorluğu və qan xidməti haqqında qanunvericiliyin pozulması** ilə bağlıdır. Bu maddənin daha ətraflı izahı üçün "Qanın, qan komponentlərinin donorluğu və qan xidməti" haqqında AR Qanununa baxmalıyıq. Burada tibb işçilərinin yol verəcəyi əsas pozuntu 4-cü maddənin müddəaları ilə bağlı ola bilər. 4-cü maddədə göstərilir:

*... Müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunmuş qaydada qan xidməti müəssisələrində (qan banklarında) tibbi müayinədən keçən, qanın, qan komponentlərinin donorluğuna heç bir **əks göstərişləri olmayan**, 18-65 yaşlı fəaliyyət qabiliyyətli hər bir şəxs qanın, qan komponentlərinin donoru ola bilər. **Yaşı 65-dən yuxarı olan şəxslər də həkim rəyi** əsasında donor ola bilərlər. [6]*

Maddənin məzmunundan də başa düşmək olar ki, qan donorluğu ilə bağlı həkim 2-məsələyə baxır -

1) Tibbi müayinədən keçən şəxsin donorluğu ilə bağlı hər hansı bir əks göstərişinin olub-olmamasıdır, əgər hər hansı bir əks göstəriş varsa, şəxsin qan verməsi onun sağlamlığı üçün problem yarada bilərsə belə olan halda həmin şəxsdən qan alınmır.

2) Yaşı 65 -dən yuxarı olan şəxslərin isə ümumi qayda olaraq donorluğuna icazə verilməsə də xüsusi həkim rəyi vasitəsilə bu hala yol verilə bilər. Həkim bu zaman müəyyənləşdirməlidir ki, qan verən şəxsin sağlamlığı onun qan verməsinə həqiqətən də icazə verirmi, bu hal sonradan onun üçün problemə səbəb ola bilərmi və s.

Bu maddənin (yəni 162 -ci maddənin ) sanksiyasına baxsaq görərik ki, maddə 3 cü şəxsə yönəlir -

1) Fiziki şəxs
2) Vəzifəli şəxs
3) Hüquqi şəxs

- Burada biz bu məsələyə aydınlıq gətirməliyik ki, vəzifəli şəxs kimdir?

***Kadrlar üzrə məsul şəxs*** vəzifəli şəxs sayılır ki, bu da təkcə müəssisənin rəhbəri mənasına gəlmir. Bəzi hallarda kadrlar üzrə məsul şəxs rəhbər şəxs olmaya da bilər. Biz əgər "Səhiyyə sahəsinə aid olan qulluqçu vəzifələrinin və fəhlə peşələrinin Vahid Tarif-İxtisas Sorğu Kitabçası" -na nəzər salsaq görərik ki, **tibb müəssisəsinin Baş Həkiminin** əmək funksiyalarına - müəssisədə əməyin təşkili və idarə olunması qaydaları da aiddir. Burdan da bunu başa düşə bilərik ki, Tibb müəssisənin baş həkimi vəzifəli şəxs hesab edilir və etdiyi qanun pozuntularına görə vəzifəli şəxs kimi məsuliyyət daşıyır.

162-1 ci maddə - İnsan orqan və toxumalarının donorluğu və transplantasiyası haqqında qanunvericiliyin pozulması isə 5 tərkibdən ibarətdir -

1) Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təsdiq etdiyi **siyahıya daxil olmayan tibb müəssisələri və digər şəxslər tərəfindən** donor orqanların hazırlanması, saxlanması, daşınması, idxalı və ixracı

2) Orqan donorluğu və transplantasiya zamanı meyit donorun qohumlarına münasibətdə resipiyentin, resipiyentə və onun qohumlarına münasibətdə **meyit donorun anonimliyinin qorunmaması**

3) Canlı donordan transplantasiya məqsədilə donor orqanların götürülməsi zamanı **"İnsan orqan və toxumalarının donorluğu və transplantasiyası haqqında"** Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş tələblərə əməl olunmaması

**4)** Şəxsin ölümdən sonra orqanlarının transplantasiya məqsədilə götürülməsinə razılıq və ya orqanlarının götürülməsindən imtina barədə iradə ifadəsinin olmasına dair **məlumatların yayılması**

Bu maddənin də daha dəqiq müəyyən olunması üçün - İnsan orqan və (və ya) toxumalarının transplantasiyası haqqında AR Qanununa nəzər salmaq vacibdir.

Bu qanunda əsas qaydalar 5-ci maddədə -**Donor həddinin müəyyən edilməsi** - şəklində əks olunmuşdur.

- Digər tibbi üsullarla və meyit orqan və (və ya) **toxumaları vasitəsi** ilə insan həyatının saxlanması və ya sağlamlığının bərpası **mümkün olmadıqda**, resipiyentə donordan orqan və (və ya) toxumaların transplantasiyasına yol verilir.
- Donorun yaşı **18-ə çatmadıqda** ondan **sümük iliyi istisna** olmaqla, transplantasiya məqsədi ilə orqan və (və ya) toxumaların götürülməsi qadağandır.
- Resipiyentin sağlamlığı üçün təhlükə törədən **xəstəliyi olan şəxslərdən** orqan və (və ya) **toxumaların götürülməsi qadağandır.**
- Resipiyentin qulluq tabeliyində və ondan fiziki, mənəvi, maddi cəhətdən asılı olan və ya həbsdə olan şəxslərdən, hərbi əsirlərdən və ruhi xəstələrdən transplantasiya məqsədi ilə orqan və (və ya) toxumaların götürülməsi yolverilməzdir.
- Donordan orqan və (və ya) toxumaların götürülməsi **mütəxəssis-həkimlərin konsiliumu nəticəsində** müəyyən edilir və donorun **yazılı razılığı** əsasında həyata keçirilir - Yəni toxuma və orqanların götürülməsi zamanı tək bir həkimin yox, birdən çox həkimin rəyi nəzərə alınmalıdır. **Konsilium** sözünün burada istifadəsi məqsədli xarakter daşıyır. Çünki "Normativ Hüquqi Aktlar haqqında" qanuna əsasən - ehtiyac olmadığı, həmin sözün Azərbaycan dilində qarşılığı olduğu müddətcə qanunvericilik aktlarında alınma sözlərdən istifadə oluna bilməz . Lakin bu halda konsilium sözü xüsusi vəziyyəti izah etdiyindən onun istifadəsi məqsəduyğun olmuşdur. Belə ki, **KONSILIUM** - [lat.] Çətin hallarda xəstəliyi, onun müalicə üsullarını müəyyənləşdirmək üçün düzəldilən ***həkimlər müşavirəsi***. Konsilium təyin etmək. Bu konsiliumun tərkibi 7-ci maddədə belə göstərilmişdir - Transplantasiyanın zəruriliyi barədə tibbi qərar müvafiq tibb müəssisəsində ***müalicə həkimi, cərrah, anesteziolog və lazım gələrsə, digər mütəxəssislərdən*** təşkil olunmuş komissiya tərəfindən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada qəbul edilir.
- Hər hansı şəxsi orqan və (və ya) toxumaların götürülməsinə **məcbur edənlər** qanunvericiliyə uyğun olaraq məsuliyyət daşıyırlar.

Bundan əlavə **"Donor orqanların transplantasiyasını həyata keçirən ixtisaslaşdırılmış tibb müəssisələrinin Siyahısı"**nın təsdiq edilməsi haqqında Nazirlər Kabinetinin qərarına əsasən tranplantasiya aşağıdakı səlahiyyətli qurumlar **tərəfindən** -göstərilmiş toxuma və orqanlar üzərindən aparıla bilər - *[11]*

| | |
|---|---|
| Akademik Mirməmməd Cavadzadə adına Respublika Kliniki Uroloji Xəstəxanası | böyrəklər |
| Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin Mərkəzi Hospitalı | qaraciyər, mədəaltı vəzi və onun seqmentləri, böyrəklər, gözün buynuz qişası |
| Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Hərbi-tibb baş idarəsinin Hərbi Hospitalı | qaraciyər, böyrəklər, mədəaltı vəzi, nazik bağırsağın bir hissəsi |
| Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzi | gözün buynuz qişası |
| Mərkəzi Neftçilər Xəstəxanası | qaraciyər, böyrəklər, mədəaltı vəzi və onun seqmentləri, nazik bağırsağın bir hissəsi, gözün buynuz qişası |
| "Mərkəzi Klinika" MMC | böyrəklər, qaraciyər, ürək, ürək-ağciyər kompleksi, mədəaltı vəzi və seqmentləri, nazik bağırsağın bir hissəsi, gözün buynuz qişası, sümük iliyi |
| Respublika Müalicəvi Diaqnostika Mərkəzi | ürək, ağciyər (ürək-ağciyər kompleksi), qaraciyər, böyrəklər, mədəaltı vəzi və seqmentləri, nazik bağırsağın bir hissəsi, gözün buynuz qişası, sümük iliyi |
| Milli Hematologiya və Transfuziologiya Mərkəzi | sümük iliyi |
| Azərbaycan Tibb Universitetinin Tədris-Cərrahiyyə Klinikası | qaraciyər, böyrəklər |
| "Gəncə Müalicə Diaqnostika Mərkəzi" MMC | böyrəklər, qaraciyər, ürək, ürək-ağciyər kompleksi, mədəaltı vəzi və seqmentləri, nazik bağırsağın bir hissəsi, gözün buynuz qişası, sümük iliyi |
| "Dünya Göz Azərbaycan" MMC | gözün buynuz qişası |
| Bakı Sağlamlıq Mərkəzi | qaraciyər, ağciyər, böyrəklər |
| Baku Medical Plaza | ağciyər |
| *Bona Dea Beynəlxalq Xəstəxanası* | *ürək, böyrəklər, qaraciyər, mədəaltı vəzi, nazik bağırsağın bir hissəsi, gözün buynuz qişası*[i] |

**Maddə 163- Qeysəriyyə kəsiyi əməliyyatının qanunsuz aparılması**

Bu inzibati xətanın obyektini hamilə qadının və onun bətnindəki uşağın sağlamlığı ilə bağlı olan ictimai münasibətlər təşkil edir.

Bu ictimai münasibətlər «Əhalinin sağlamliğinin qorunması haqqında» 16 iyun1997-ci il tarixli Azərbaycan Respublikasının Qanunu, şərh edilən maddə və bunlarla əlaqədar qəbul edilmiş digər normativ-hüquqi aktlarla tənzimlənir.

Qanunvericiliyə «Qeysəriyyə kəsiyi əməliyyatı» ifadəsi daxil edilsə də,təəssüfki, indiyə qədər qeysəriyyə kəsiyinin anlayışı verilməmişdir. Roma imperator qanunlarına görə (***lat. Les Jaesanea sezar qanunu)*** ölən hamilə qadının uşağını xilas etməküçün tətbiq edildiyindən bu anlayış kəsmək, yarmaq sözündən yaranmışdır. İlk dəfə uğurlu Qeysəriyyə kəsiyi əməliyyatı XV əsrdə donuz saxlayan **Yakov Nuferadlı isveçrəli tərəfindən Turqan kantonunda** icra edilmişdir. Belə ki, müdaxilədən sonrahəyat yoldaşı və uşaq nəinki sağ qalmışdır, sonrakı ildə həyat yoldaşı təzədən hamiləqalaraq təbii yolla dünyaya ekiz uşaq gətirmişdir. Bu uğurlu əməliyyatdan sonraəməliyyat texnikası təkmilləşmiş, aseptik qaydalar və antibiotik tətbiqi genişlənmiş, ana ölümü kəskin azalmışdır. Günümüzdə Qeysəriyyə kəsiyi müdaxiləsi təbii doğuşlarəqabət səviyyəsinə gəlib çıxmışdır. Könüllü və ya arzuedilməz Qeysəriyyə kəsiyiəməliyyatlarinin sayı getdikcə artmaqdadir.

Məhz yuxarıda deyilənlər baxımından Qeysəriyyə kəsiyi əməliyyatının ixtisaslı akuşer-ginekoloq tərəfindən aparılması məqsədə müvafiq hesab edilir. Yəni akuşer-ginekoloq ali təhsilli olmalı, bu sahədə kifayət qədər təcrübəyə malik olmalıdır.

İnzibati Xətalar Məcəlləsində 215-ci yəni, Sağlamlığın qorunması sahəsində vətəndaşların hüquqlarının pozulması ilə bağlı olan müddəa bu mövzu ilə bağlı ən aidiyyatı maddə hesab olunur.

Bu maddənin 1-ci bəndində ***"... lisenziyada göstərilən işlərdən və xidmətlərdən kənar tibb fəaliyyətinin həyata keçirilməsinə görə"*** məsuliyyət müəyyənləşdirmişdir. "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının 2016-cı il 15 mart tarixli 176-VQ nömrəli Qanununa 1 nömrəli əlavə - Lisenziya tələb olunan fəaliyyət növlərinin (dövlət təhlükəsizliyindən irəli gələn hallar istisna olmaqla) siyahısına baxdıqda görə bilərik ki, "Özəl tibb fəaliyyəti" - lisenziyaya tabe fəaliyyət sahəsidir. Üstəlik bu lisenziya ümumi tibb faəliyyəti üçün deyil, tibb sahəsində hər bir fəaliyyət üçün özəl olaraq verilir.

***215.2. Tibb işçiləri öz vəzifələrini yerinə yetirərkən, ixtisaslaşdırılmış tibbi yardım göstərilməsi tələb olunan şəxsləri bu yardımı göstərən tibb müəssisələrinə göndərmədiklərinə görə -fiziki şəxslər iki yüz manatdan üç yüz manatadək məbləğdə, vəzifəli şəxslər beş yüz manatdan səkkiz yüz manatadək məbləğdə cərimə edilir.***

Bu maddə isə öz növbəsində tibb işçilərinə ixtisaslaşdıqları sahədən savayı sahələrdə fəaliyyət göstərməyi qadağan edir. Bu məsələnin daha aydın qavranılması üçün ***2(102)-588/2022 nömrəli 22.02.2022-*** tarixli Ali Məhkəmənin anonimləşdirilmiş qərarında göstərilir - *risk qrupuna daxil edilən hamiləliyin "kesar kəsiyi"*

*cərrahiyə əməliyyatı yolu ilə* ***ixtisaslaşmış tibb müəssisəsində*** *başa çatdırılmalı olduğu və doğuşu təkbaşına icra etməyə səlahiyyəti olmadığı halda, Vəfa Yusubovanın və doğulacaq uşağın həyat və sağlamlığına təhlükə yaratdığını qabaqcadan görsə də, Səhiyyə Nazirliyinin 23 iyun 2012-ci il tarixli, 22 saylı qərarı ilə təsdiq olunmuş* ***"Normal doğuş üzrə protokolun"*** *və 19 sentyabr 2012-ci il tarixli, 70 saylı əmri ilə təsdiq edilmiş "****Mamanın nümunəvi vəzifə təlimatının"*** *6-9-cu bəndlərinin tələblərini pozmaqla hamiləlik vəziyyətini düzgün qiymətləndirməyərək kifayət qədər əsas olmadan mənfi nəticələrin qarşısını alacağını güman edib saat 08 radələrində Vəfa Yusubovanın doğuşunu təkbaşına icra etməyə başlayıb. Doğuş vaxtı dölün doğuş yollarından keçdiyi zaman yol verdiyi kobud texniki səhv nəticəsində ehtiyatsızlıqdan yeni doğulmuş uşağa başının sağ təpə nahiyəsinin kefalohematoması, sağ körpücük sümüyünün orta üçdə birinin yerdəyişməyən sınığı və iki tərəfli pnevmotoraksla müşayiət olunan, həyat üçün təhlükəli olmaqla dərəcəsinə görə sağlamlığa ağır zərər vurmaya aid xəsarətlər yetirməklə ehtiyatsızlıqdan yeni doğulmuş uşağın sağlamlığına ağır zərər vurub*

***215.3. İxtisaslaşdırılmış tibbi yardımın "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qaydada göstərilməməsinə görə - beş yüz manat məbləğində cərimə edilir.***

"Əhalinin sağlamlığının qorunması haqqında" qanuna daha sonra baxacağımızdan mövzu ilə bağlı göndəriş etməklə kifayətlənirik -**BAX səh.**

*215.4. Qanunvericiliyə uyğun olaraq sertifikasiyadan keçməyən şəxslərin (işçilərin) praktik tibb və əczaçılıq fəaliyyətinə buraxılmasına görə - vəzifəli şəxslər səkkiz yüz manatdan min manatadək məbləğdə, hüquqi şəxslər altı min manatdan səkkiz min manatadək məbləğdə cərimə edilir.*

Tibbi fəaliyyətin bir digər sahəsi isə məhz dərmanlarla bağlıdır. **İXM - 221 xüsusən də 221.9-cu maddəsi** həkim fəaliyyəti ilə bağlıdır. ***Bioloji fəallığa malik qida əlavələrinin həkim reseptinə yazılmasına görə - vəzifəli şəxslər əlli manatdan yüz manatadək məbləğdə, hüquqi şəxslər yüz əlli manatdan iki yüz manatadək məbləğdə cərimə edilir.***

Bu maddə həkim reseptinin önəmini və ondan sui-istifadənin nəticələri ilə bağlıdır.

**1.3.2 -HƏKİMİN CİNAYƏT MƏSULİYYƏTİ**

Tibb işçilərinin məsuliyyəti cinayət qanunvericiliyində də öz əksini tapmışdır. Belə ki, əvvəlki bölmələrdə də qeyd olunduğu kimi, bütün bu çəkindirmə tədbirləri tibb işçilərinin-xüsusən də həkimlərin daha diqqətli olmasını təmin etməyə yönəlikdir. Cinayət qanunvericiliyində **135, 136, 138, 141,142, 172** -ci maddələr bu baxımdan xüsusən tədqiq olunmalıdır. Ümumi şəkildə qeyd edə bilərik ki, bu maddələrin hər birinin ortaq cəhəti - həyat və sağlamlıq əleyhinə olan cinayətlər kateqoriyasına aid olmasıdır (istisna 172-ci maddə, yəni Özgənin uşağını dəyişdirmə -ailə münasibətləri əleyhinə olan cinayətlər kateqoriyasına aiddir).

Təbii ki, əgər həkim xəstəyə müəyyən qəsd və ehtiyatsızlıqla (burada şəxsin təcrübəsiz və məsuliyyətsiz olması məsuliyyətə səbəb ola bilər) zərər vurarsa, pasiyentin sağlamlığını təhlükəyə atarsa bu zaman, o ümumi əsaslarla - ***120- ci (sadə qəsdən adam öldürmə), 124-cü (ehtiyatsızlıqdan adam öldürmə), 126-cı (Qəsdən sağlamlığa ağır zərər vurma), 127-ci (Qəsdən sağlamlığa az ağır zərər vurma), 128-ci (Qəsdən sağlamlığa yüngül zərər vurma), 131-ci ( Ehtiyatsızlıqdan sağlamlığa ağır zərər vurma)*** məsuliyyətə cəlb oluna bilər.

***Maddə 135 - Evtanaziya***

İlk öncə ən "məşhur" maddələrdən olan 135-ci, yəni **Evtanaziya** maddəsinə nəzər salaq. Yuxarıda da qeyd olunduğu kimi -Evtanaziya hərfi mənada -***sağalmaz xəstəlikdən əziyyət çəkən insanı və ya heyvanı həyatdan məhrum etmə təcrübəsi mənasına gəlir.*** Lakin cinayət qanunvericiliyində evtanaziya yalnız insanlara yönəlik olarsa məsuliyyətə səbəb olmaqdadır.

Bu cinayət 2-cür metodla törədilə bilər -

1. Ölümü hər hansı vasitə, yaxud hərəkətlə tezləşdirmə
2. Xəstənin həyata davam etməsinə kömək edən süni tədbirləri dayandırma

Dünyada 3 ölkədə insanların həyatı könüllü tərk etməsinə icazə verilir. Birinci məkan **Fələstindir**. Burada könüllü ölməyin çox sadə və çeşidli yolları var ki, hamısına da "sionist işğalçılarına qarşı şəhadət" deyilir: şəhid olmaq istəyən kəs ölümü könüllü seçir, sonra da israillilərə maksimum ziyan vurmaq üçün özünü partladır. İkinci məkan **Hollandiyadır** ki, burada ağır xəstə olan insanların ölüm seçmələri qanunla rəsmiləşdirilib. Üçüncü məkan isə ABŞ-nin **Oreqona ştatıdır**. Oreqonada 1997-ci ildən bəri qüvvəyə minmiş yerli qanuna görə, könüllü ölüm proseduru yolverilən sayılır. Birləşmiş Ştatların başqa yerində belə qanun yoxdur. [https://az.wikipedia.org/wiki/Evtanaziya]

Lakin digər ölkələrdə evtanaziya istənilən halda kriminal hərəkətdir. Buna baxmayaraq belə ölkələrdə də, evtanaziyaya yanaşma birmənalı deyil - belə ki, bəzi ölkələrdə evtanaziya sadə qəsdən adam öldürmə kimi tövsif olunur, yəni heç bir yüngülləşdirici hallar nəzərə alınmadan - Məsələn Rusiya qanunvericiliyində olduğu kimi.

Digər ölkələrdə isə (Məsələn Azərbaycanda olduğu kimi) evtanaziya ilə adam öldürmə bu cinayətin xüsusi yüngülləşdirici halı kimi nəzərdə tutulmuş və sanksiyası da sadə qəsdən adam öldürmə cinayətindən olduqca aşağı hədlərdə müəyyən olunmuşdur -*iki ilədək müddətə islah işləri və ya üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə* **üç ilədək müddətə azadlıqdan məhrum etmə** *ilə cəzalandırılır.* ***Müqayisə üçün qeyd edək ki, sadə qəsdən adam öldürmə cinayətinin sanksiyası-doqquz ildən on dörd ilədək müddətə azadlıqdan məhrum etmə olaraq müəyyənləşdirilmişdir.***

***BU CİNAYƏTİN:***

***Obyekti*** **-** Şəxsiyyətin həyatının təhlükəsizliyi ilə bağlı olan münasibətlərdir (yəni bu əməli törədən şəxs -bu obyektə qəsd törətmiş hesab olunacaqdır)

**Subyekti -** 16 yaşına çatmış hər hansı fiziki və anlaqlı olan şəxsdir.(çox zaman həkim və tibb işçiləri olur)

**Subyektiv cəhət -** Dolayı qəsd - yəni təqsirkar şəxs öz hərəkətləri ilə xəstə olan şəxsin ölümünü tezləşdirdiyini başa düşür, ancaq şəxsin ölümünü arzulamır.

Burada subyektiv cəhətin, yəni təqsirkar şəxsin əməlinə yanaşması olduqca vacibdir və xüsusi araşdırma tələb edir. Əgər təqsirkar şəxs - xəstənin sağalmaz bir xəstəlikdən əziyyət çəkdiyini bilmirsə və ya xəstə öz ölümünün tezləşməyini istəmirsə (yazılı və ya şifahi şəkildə bu xahişini bildirməmişsə) və yaxud təqsirkar xəstəni onun "əzablarına son vermək" məqsədi ilə deyil sair məqsədlərlə (məsələn nifrət, qəzəb, qısqnclıq və s.) edirsə bu zaman təqsirkarın əməli 135-ci maddə ilə, yəni evtanaziya başlığı ilə tövsif edilə bilməz.

Yəni təqsirkar şəxsin əməlini evtanaziya olaraq tövsif edə bilməyimiz üçün bu ünsürlərin hər biri işin hallarında mövcu olmalıdır -

1. Xəstənin sağalmaz xəstəlikdən əziyyət çəkdiyinə dair həkimlərin konsoliumu
2. Xəstənin bununla bağlı xahişi
3. Təqsirkar şəxsin xəstənin "Əzablarına son vermə məqsədilə" bu əməli törətmiş olması

**Obyektiv cəhət -** xəstənin xahişi ilə onun ölümünü hər hansı vasitə, yaxud hərəkətlə tezləşdirmə və ya onun həyatının davam etməsinə kömək edən süni tədbirləri dayandırmada ifadə olunur.

***Maddə 136. Qanunsuz süni mayalanma və embrionu implantasiya etmə, tibbi sterilizasiya***

*136.1. Qadına, onun razılığı olmadan və ya yetkinlik yaşına çatmayan qadına süni mayalanma və ya embrionu implantasiya etmə—*

*dörd min manatdan yeddi min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.*

Belə ki, şəxsin iradəsi ziddinə süni mayalanma, embrionu implantasiya etmə və tibbi sterilizasiya onun öz sağlamlığına olan hüquqlarını ciddi surətdə pozur. Digər tərəfdən, bu əməliyyatlar müəyyən hallarda zərərçəkmiş şəxsin həyat və sağlamlığını da təhlükə altına alır.

***Süni mayalanma dedikdə***, ana bətnindən götürülmüş yumurta hüceyrənin xüsusi şəraitdə (ana bətnindən kənar) mayalandırılması başa düşülür.

***Embrionu implantasiya etmə dedikdə***, qadının orqanizmindən kənarda süni mayalanma yolu ilə əldə edilmiş embrionun sonradan qadının uşaqlığına köçürülməsi başa düşülür.

Embrionu implantasiya etme süni mayalanmanı tamamlayan əməliyyatdır. Çünki süni mayalanma yolu ilə əldə edilmiş embrion çox qısa müddət (72 saata qədər) ərzində qadının uşaqlığına köçürülməlidir. Ona görə də təhlil edilən əməllər bir-birini tamamlayan əməllərdir.

«Əhalinin sağlamlığının qorunması haqqında» Azərbaycan Respublika-sının 26 iyun 1997-ci il tarixli Qanununun 29-cu maddəsinə əsasən,yetkinlik yaşına çatan hər bir qadın süni mayalanma və ona embrionun implantasiyası hüququna malikdir. Süni mayalanma və embrionun implantasiyasi ər və arvadın, o cümlədən tənha qadının rəsmi razılığı olduqda aparılır.

CM-in 136.1-ci maddəsi ilə nəzərdə tutulmuş cinayətdən zərərçəkmiş şəxs yalnız ***qadın*** ola bilər. Maddənin dispozisiyası zərərçəkmişlərin iki kateqoriyasını fərqləndirir:

1. Yetkinlik yaşına çatmış qadın;
2. Yetkinlik yaşına çatmamış qadın.

Təhlil edilen əməldən zərərçəkmiş şəxs qismində yetkinlik yaşına çatmış qadın çıxış etdikdə CM-in 136.1-ci maddəsi üzrə məsuliyyət o vaxt yaranacaqdır ki, süni mayalanma və ya embrionu implantasiya etmə qadi-nın raziliği olmadan həyata keçirilsin. Zərərçəkmiş şəxs yetkinlik yaşına çatmayan qadın olduqda onun razılığının olub-olmamasından asılı olmayaraq süni mayalanma və ya embrionu implantasiya etmə CM 136.1 -ci maddəsi ilə tövsif ediləcəkdir.

CM 136.2 - ci maddəsində isə şəxsin razılığı olmadan tibbi sterilizasiyanın aparılmasını qadağan edir. Burada tibbi sterilazisyanın nə olduğuna aydınlıq gətirmək zərurəti yaranır -

***Tibbi sterilizasiya*** - nəsilartırma qabiliyyətindən məhrum edilməsi

**BU CİNAYƏTİN:**

**Obyket -** Şəxsin öz sağlamlığına nəzərən olan hüquqları

**Subyekt -** 16 yaşına çatmış fiziki və anlaqlı şəxs (çox zaman həkim və tibb işçiləri olur)

**Subyektiv cəhət -** Birbaşa qəsd

**Obyektiv cəhət -** Qanunsuz süni mayalanma və embrionu implantasiya etmə, tibbi sterilizasiya

**CASE - AİHM**

*Məhkəmə (sterilizasiyaya aid işlərdən əlavə) həmçinin məcburi tibbi müalicə ilə və ya tibbi səhvlərdən doğan ziyanla əlaqədar olan işlərdə 8-ci maddənin digər maddələr üçün doğurduğu nəticələri nəzərdən keçirib. Bəzi hallarda Konvensiya orqanları məcburi xarakter daşıyan (Akmann və başqaları Belçikaya qarşı, Komissiyanın qərarı; Boffa və başqaları SanMarinoya qarşı, Komissiyanın qərarı; Salvetti İtaliyaya qarşı (qərardad)) və ya məhkəmə qərarı əsasında həyata keçirilən nisbətən kiçik tibbi müayinələrlə (X Avstriyaya qarşı, Komissiyanın qərarı; Peters Niderlanda qarşı, Komissiyanın qərarı) əlaqədar olaraq bu qənaətə gəliblər ki, hətta pasiyentin özünün razılığı olmadıqda belə, 8-ci maddədə nəzərdə tutulmuş hüquqa bu cür müdaxilə mütənasib hesab edilə bilər.[1]*

***Maddə138. Qanunsuz olaraq biotibbi tədqiqatlar aparma və ya qadağan edilmiş diaqnostika və müalicə üsullarını, dərman vasitələrini tətbiq etmə***

***Biotibbi tədqiqat nədir?***

Diaqnostika, profilaktika və müalicə üsullarının həmçinin dərman vasitələrinin sınaqdan keçirilməsi, elmi məlumatların yoxlanması üçün həyata keçirilən eksperimentlər.

**"Əhalinin sağlamlığının qorunması haqqında"** qanuna əsasən biotibbi tədqiqatlar yalnız və yalnız şəxsin yazılı razılığı əsasında, ona bu tədqiqatların bütün mümkün risk və nəticələri izah olunduqdan sonra aparıla bilər. Üstəlik şəxs başda razılıq versə belə tədqiqatın istənilən mərhələsində əvvəlki niyyətindən vaz keçə bilər və heç kim onu tədqiqat üçün məcbur edə bilməz.

Üstəlik bu cinayət **formal tərkib -** cinayət olduğundan tədqiqatlara məcbur olunmuş şəxsə heç bir zərər gəlməsə beləbelə tədqiqatın başlaması artıq cinayət məsuliyyəti üçün əsasdır.

**BU CİNAYƏTİN:**

**Obyekt-** Şəxsin öz sağlamlığına olan hüquqlarıdır.

**Subyekt -** 16 yaşına çatmış fiziki, anlaqlı şəxs (çox zaman əczaçı və tibb işçiləri olur)

**Subyektiv cəhət -** Birbaşa qəsd (maddənin digər hissələrində qarışıq formadan da söhbət gedə bilər)

**Obyektiv cəhət -** Qanunsuz olaraq biotibbi tədqiqatlar aparma və ya qadağan edilmiş diaqnostika və müalicə üsullarını, dərman vasitələrini tətbiq etmə

**CASE - AİHM**

*Məhkəmə işlənmiş şprislərin steril şprislərlə əvəzlənməsi proqramını həbsxanalarda narkotik vasitə istifadəçiləri üçün tətbiq etməmək barədə Birləşmiş Krallığın hakimiyyət orqanlarının qərarından verilmiş şikayətin qəbuledilən olmadığını qərara alıb (Şelli Birləşmiş Krallığa qarşı (qərardad)). Həmin işdə Məhkəmə qərara aldı ki, 8-ci maddə əsasında iştirakçı dövlətin üzərinə hər hansı konkret preventiv sağlamlıq siyasətini həyata keçirmək kimi bir öhdəlik qoyan heç bir qərar yoxdur. O həmçinin müəyyən etdi ki, sağalmaz xəstəliyi olan pasiyentlərin qanunla nəzərdə tutulmayan eksperimental narkotik vasitələrdən istifadə etmələrinə icazə verməkdən Bolqarıstanın imtina etməsi 8-ci maddənin pozuntusuna səbəb olmayıb (Xristozov və başqaları Bolqarıstana qarşı; Durisotto İtaliyaya qarşı (qərardad)) və pasiyentlərə çətənə tərkibli dərmanların yazılmasını nəzərdə tutan qanunvericiliyə qarşı şikayət ərizəsini rədd etdi (A.M. və A.K. Macarıstana qarşı (qərardad)), eyni zamanda bu sahədə dövlətin daşıdığı öhdəlikləri də qeyd etdi (46-47-ci bəndlər). [1]*

***Maddə 141. Qanunsuz abort etmə***

Bu cinayətin 2-forması fərqləndirilir:

***1. Həkim tərəfindən tibb müəssisələrindən kənarda abort etmə-***

a) beş yüz manatdan min manatadək miqdarda cərimə və ya altı ayadək müddətə islah işləri ilə cəzalandırılır.

***2. Xüsusi ali tibbi təhsili olmayan şəxs tərəfindən abort etmə-***

a) min manatdan min beş yüz manatadək miqdarda cərimə və ya üç yüz altmış saatdan dörd yüz saatadək müddətə ictimai işlər və ya bir ilədək müddətə islah işləri ilə cəzalandırılır.

Abort - Hamiləliyin süni sürətdə pozulmasını bildirir. Lakin abort heç bir halda kortəbii şəkildə aparıla bilməz. Çünki bu proses istənilən halda şəxsin həyatı üçün çox böyük risk hesab olunur. Bu səbəbdən bu fəaliyyətin qaydaları və şərtləri qanunvericilik tərəfindən tənzimlənmişdir.

- **Səhiyyə Nazirliyi** tərəfindən - "Hamiləliyin süni pozulmasının tibbi göstəricilərinin" siyahısı 1999-cu il 12 yanvar -5 nömrəli qərar ilə

Cinayətdən zərərçəkmiş şəxs qismində yalnız **hamilə qadın** çıxış edir. Bu zaman qanunsuz abort etmə qadının razılığ ilə həyata keçirildikdə CM-in 141-ci maddəsində nəzərdə tutulmuş cinayət tərkibi yaranacaqdır. Əks təqdirdə (qadının razılığı olmadıqda) əməl sağlamlığa ağır zərər vurma (CM-in 126-cı maddəsi) kimi tövsif ediləcəkdir.

«Əhalinin sağlamlığının qorunmasi haqqında» Azərbaycan Respublika-sinin 26 iyun 1997-ci il tarixli Qanununun 30-cu maddəsinə əsasən, hamiləliyin süni surətdə pozulması **qadının arzusu ilə hamiləliyin 12 həftəlik** müddətinədək, **sosial göstərişlər üzrə isə 22 həftəliyinədək** aparıla bilər. Həmin müddətlərdən sonra abort etmə, ümumiyyətlə, qanunsuz olacaqdir. Hamiləliyin süni pozulmasına dair Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 12 yanvar tarixli, 5 nömrəli qərarı ilə təsdiq edilmiş hamiləliyin süni pozulmasına dair sosial göstərişlərin Siyahisina əsasən, həmin sosial göstərişlərə **ərin 2-ci qrup əlil olması; hamilələk dövründə ərin ölməsi; valideynlik hüququndan məhrum edilmə və ya məhdudlaşdırılma barədə məhkəmə qərardadının olması halları; müəyyənləşdirilmiş qaydalar əsasında qadının və yaxud onun ərinin işsiz hesab edilməsi; qadının və yaxud ərinin azadlıqdan məhrum edilmə yerlərində olması; nikahdan kənar hamiləlik; hamiləlik dövründə nikahın pozulması; hamiləliyin zorlanmaya məruz qalma nəticəsində baş verməsi; çoxuşaqlılıq (5 və daha artiq uşaq); ailədə sağlamlıq imkanları məhdud uşağın olması; qadinin qaçqin və ya məcburi köçkün statusunun olması və mənzilin olmaması, yataqxanada, şəxsi evdə, kirayədə yaşama daxildir.**

**BU CİNAYƏTİN:**

**Obyekt-** İnsan sağlamlığının təhlükəsizliyini təmin edən ictimai münasibətlər

**Subyekt -** 141.1 m. -Yalnız həkim(akuşer-ginekoloq)

141.2 m. - 16 yaşına çatmış fiziki, anlaqlı şəxs

**Subyektiv cəhət -** Birbaşa qəsd

**Obyektiv cəhət -** Qanunsuz abort etmə

***Maddə 142. Xəstəyə kömək göstərməmə***

CM 142-ci maddəsi mövzumuzla ən yaxından və üzərinə düşünülməli olan hissədir. Məcəllədə maddənin əsası belə göstərilir -

***"Qanunvericiliyə və ya xüsusi qaydalara müvafiq olaraq xəstəyə kömək etməyə borclu olan tibb işçisi tərəfindən üzürlü səbəblər olmadan xəstəyə tibbi yardım göstərilməməsi nəticəsində onun sağlamlığına zərər vurma və ya ölümünə səbəb olma"***

**Bu maddənin əsas məqsədi** - Şəxsləri həkimlərin, tibb işçilərinin məsuliyyətsizlik və özbaşınalıqlarından qorumaqdır.

Bu maddə ilə məsuliyyətə cəlb olunmanın əsasında -Həkimin kömək göstərməyə məcbur olduğu hallar durur. Yəni istənilən halda həkim xəstəyə kömək göstərmək məcburiyyətində olmaya bilər. Lakin bəzi hallar vardır ki, mülkiyyət formasından, kimliyindən asılı olmayaraq **Ali tibb təhsili almış şəxslər** köməyə ehtiyacı olan şəxslərə kömək etməlidirlər. Belə hallar "Əhalinin sağlamlığının qorunmas haqqında" qanunda **33-cü maddədə** konkret göstərilmiş, üstəlik digər qanunvericilik aktlarında da belə halların dairəsi müəyyən qədər genişləndirilmişdir. Adı çəkilən maddədə göstərilir - "***Vətəndaşlara təcili və təxirəsalınmaz tibbi yardım təcili tibbi müdaxilə tələb edən hallarda (bədbəxt hadisələr, travmalar zəhərlənmələr və digər xəstəliklər) mülkiyyət formasından asılı olmayaq təcili yardım tibb müəssisələri, eləcə də qanunvericilikdə müəyyən edilmiş qaydada ilkin tibbi yardım etməyə borclu olan şəxslər tərəfindən göstərilir". Belə olan hallarda həkimin özəl tibb müəssisədində çalışmasından, növbədə, istirahətdə və ya təqaüddə olmasından asılı olmayaraq -ehtiyacı olan şəxslərə dərhal yardım göstərməlidir.***

- Özəl tibbi praktika ilə məşğul olan şəxslər təxirəsalınmaz tibbi yardıma ehtiyacı olan şəxslərə ***pulsuz*** tibbi yardım göstərirlər.
- Narkoloji xəstəliklə əlaqədar göstərilən təxirəsalınmaz tibbi tədbirlər ***dövlət büdcəsinin*** vəsaiti hesabına həyata keçirilir

Zəruri müdaxiləni etmək üçün həkimə lazımı şərait və vasitələr olmalıdır. Yəni əgər həkimin ehtiyacı olan alət və dərmanlar yoxdursa və bunlar olmadan müdaxilə mümkünsüzdürsə və ya əsaslı risk daşıyırsa həkimin hərəkətsizliyi onun məsuliyyətinə səbəb olmaz.

**BU CİNAYƏTİN:**

**Obyekt-** İnsan sağlamlığının təhlükəsizliyini təmin edən ictimai münasibətlər

**Subyekt** - Xüsusidir - Kömək göstərməyə məcbur olan aidiyyatı həkim

**Subyektiv cəhət** - Kommentariyada bu cinayətin təqsirin qarışıq formasında törədildiyi göstərilsə də, göstərişləri ümumməcburi olan AR Konstitusiya məhkəməsinin ***7 aprel 2021 tarixli*** - **"Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 142-ci maddəsinin həmin Məcəllənin 56-cı maddəsinin tətbiqi baxımından şərh olunmasına dair" qərarı 142-ci maddə ilə bağlı subyektiv cəhəti yalnızca ehtiyatsızlıqla əhatə etmişdir.**

**Obyektiv cəhət -**

a) tibb işçisinin qanunvericiliyə və ya xüsusi qaydalara müvafiq olaraq xəstəyə kömək göstərmək vəzifəsinin mövcud olması;

b) zərərçəkmişin tibbi yardıma ehtiyacının olmaı;

c) tibb işçisinin üzrlü səbəbler olmadan xəstəyə tibbi yardım göstərməməsindən ibarət hərəkətsizlik;

d) zərərçəkmişin sağlamlığına az ağır zərərin vurulması;

e) tibb işçisinin hərəkətsizliyi ilə zərərçəkmişin sağlamlığına vurulmuş az ağır zərər arasında səbəbli əlaqə.

**2. PASİYENTİN HÜQUQLARI**

Ümumi hüquq nəzəriyyəsindən bizə məlum olduğu kimi bir tərəfin hüquqları qarşı tərəfin vəzifələrini təşkil edir. Biz əgər az əvvəl həkimin vəzifələrindən və məsuliyyətindən danışırdıqsa - indi qeyd edə bilərik ki, həkimin məsuliyyətini və vəzifəsini təşkil edən hər bir hal sistem şəklind pasiyentin hüquqlarını formalaşdırmaqdadır.

Lakin pasiyentin hüquqlarını qanunvericinin yanaşmasından təkrar ələ alınmasında, sadalanmasında "Xüsusi bir hikmət" vardır. Belə ki, qanunvericilik pasiyentin öz hüquqlarını rahatlıqla tələb edə bilməsi üçün onun hüquqlarına özəl bölmələr, fəsilllər ayırmışdır. Bunun üçün "Əhalinin sağlamlığının qorunması haqqında" qanunun IV fəslinə baxmaq kifayətdir- ***xüsusən də 24 - cü maddəyə. Pasiyentin:***

- təxirəsalınmaz tibbi yardım göstərilməsi halları istisna olmaqla həkimin öz razılığı ilə həkimi, o cümlədən müalicə həkimini və müalicə-profilaktika müəssisəsini ***seçmək;***
- sanitariya-gigiyena tələblərinə uyğun olan şəraitdə müayinə və müalicə olunmaq;

- stasionar müalicə olunduğu tibb müəssisəsinin mütəxəssislərinin iştirakı ilə konsilium və məsləhətləşmələr aparılmasını tələb etmək;
- tibbi yardım üçün müraciət faktını, müalicə, sağlamlıq vəziyyəti, xəstəliyin diaqnozu barəsində, eləcə də müayinə və müalicə zamanı əldə edilən digər məlumatları ətrafdakılardan gizli saxlamaq;
- tibbi müdaxiləyə şifahi və ya yazılı könüllü razılıq vermək;
- tibbi müdaxilədən imtina etmək;
- hüquq və vəzifələri haqqında, sağlamlığının vəziyyəti barədə məlumat almaq və öz mənafeyi baxımından bu məlumatı vermək mümkün olan şəxsi seçmək;
- daxili qaydalar pozulmamaq şərtilə xəstəxanada dini mərasimin icra edilməsi üçün ayrıca yerlə təmin olunmaq hüququ vardır.
- Pasiyentin hüquqları pozulduqda, o, müalicə-profilaktika müəssisəsinin rəhbərliyinə, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) və ya qanunvericilikdəmüəyyən edilmiş qaydada məhkəməyə müraciət edə bilər.

Son hissədə göstərilən məsələ ***AR Mülki Məcəlləsinin 1112-ci*** maddəsində öz əksini belə tapmışdır -

***"Tibb müəssisəsində müalicə zamanı (cərrahiyyə əməliyyatı, yanlış diaqnoz və s. nəticəsində) şəxsin sağlamlığına vurulmuş zərərin əvəzi ümumi əsaslarla ödənilir. Zərərvuran zərərin onun təqsiri üzündən baş vermədiyini sübuta yetirərsə, məsuliyyətdən azad edilir."***

*Yəni,* əgər bir həkim müəyyən bir tibb müəssisəsində fəaliyyət göstərir və onun səhvi ucbatından pasiyentə fiziki, maddi, mənəvi zərər dəyirsə -burada yaranan maddi zərərin əvəzi ***ilk olaraq hüquqi şəxs olan müəssisə tərəfindən ödənilir,*** daha sonra isə həmin müəssisəsə öz işçisi olan həkimdən ***reqres tələb qaydasında*** həmin məbləği geri tələb edə bilər.

**Maddə 25** - Sağlamlığının vəziyyəti barədə vətəndaşın məlumat almaq hüququ

Hər bir vətəndaş müayinənin nəticəsi, xəstəliyin diaqnoz və proqnozu, müalicə üsulları və bununla bağlı risk dərəcələri, aparılmış müalicənin nəticəsi haqqında məlumatlar da daxil olmaqla sağlamlığının vəziyyəti barədə özü üçün səmərəli formada məlumat almaq hüququna malikdir. Vətəndaşın sağlamlığının vəziyyəti barədə məlumat onun özünə, qanunvericilikdə müəyyən edilmiş qaydada fəaliyyət qabiliyyəti olmayan hesab edilən şəxslərin və ay yetkinlik yaşına çatmayanların sağlamlıqlarının vəziyyəti barədə məlumat isə onların valideynlərinə və ya qanuni nümayəndələrinə müayinə və müalicədə bilavasitə iştirak edən mütəxəssislər tərəfindən verilir. Xəstəliyin inkişaf proqnozu mənfi olduqda bu barədə məlumat xəstənin yaxın qohumlarına və ya qanuni nümayəndələrinə, xəstə tələb etdikdə isə bu məlumat ehtiyatlı formada onun özünə çatdırıla bilər. Vətəndaş onun sağlamlığının vəziyyətini əks etdirən tibbi sənədlərlə bilavasitə tanış olmaq və onlarla bağlı başqa mütəxəssislərdən məsləhət almaq hüququna malikdir. Vətəndaşın tələbi ilə ona sağlamlığının vəziyyətini əks etdirən tibbi sənədlərin surətləri təqdim olunur. Psixiatriya yardımı alan və ya əvvəllər psixiatriya yardımı almış şəxsə göstərilən yardım tədbirləri barədə məlumatlar şəxsin özünün və yaxud onun qanuni nümayəndəsinin yazılı müraciətindən sonra 2 gün ərzində müəssisənin müdiriyyəti tərəfindən təqdim olunmalıdır. Pasiyentin məlumatları əldə etmək hüququ yalnız onun sağlamlığına zərərin vurulmasının qarşısının alınması və digər şəxslərin təhlükəsizliyinin təmin edilməsi məqsədi ilə məhdudlaşdırıla bilər. Psixi pozuntusu olan pasiyentə qulluq edən ailə üzvləri yalnız göstərdikləri yardıma aid olan məlumatı əldə edə bilərlər. Pasiyentə zərər törədə biləcək məlumatların onlara verilməsi qadağandır

**Pasiyentin həkimdən həkim sirrini qorumağı tələb etmə hüququ vardır -**

Vətəndaşın tibbi yardım üçün müraciət etməsi faktı, onun xəstəliyinin diaqnozu, sağlamlığının vəziyyəti müayinə və müalicə vaxtı əldə edilən digər məlumatlar barədə informasiya həkim sirrini təşkil edir.

Vətəndaşın verəcəyi məlumatın gizli saxlanılması haqqında ona zəmanət verilir. Vətəndaşın və ya onun qanuni nümayəndəsinin razılığı ilə həkim sirrini təşkil edən məlumat pasiyentin müayinə və müalicəsinin mənafeyi naminə, elmi tədqiqatların aparılması, elmi ədəbiyyatda nəşr edilməsi, tədris və digər məqsədlərlə istifadə olunması üçün başqa vətəndaşlara, vəzifəli şəxslərə verilə bilər.

Həkim sirrini təşkil edən məlumat vətəndaşın, yaxud onun qanuni nümayəndəsinin razılığı olmadan aşağıdakı hallarda verilə bilər: vətəndaş öz vəziyyətini izah etmək qabiliyyətinə malik olmadıqda, vətəndaşı müayinə və müalicə etmək məqsədilə; yoluxucu xəstəliklərin yayılması

təhlükəsi olduqda, kütləvi zəhərlənmələr və zədələnmələr baş verdikdə; istintaq və təhqiqat orqanlarının, prokurorun və məhkəmənin sorğusu ilə; yetkinlik yaşına çatmayanların valideynlərinə, yaxud qanuni nümayəndələrinə məlumat vermək məqsədilə; hüquqa zidd hərəkətlər və vətəndaşın sağlamlığına vurulan zərər barədə şübhə olduqda; həqiqi hərbi xidmətə çağırışın və səfərbərliyin təmin olunması məqsədilə müvafiq icra hakimiyyəti orqanının sorğusu ilə.

Həkim sirrinə qanuni qaydada yiyələnən şəxslər onun yayılmasına və bununla əlaqədar vətəndaşa dəyən zərərə görə qanuna uyğun olaraq tibb və əczaçılıq işçilərinə bərabər məsuliyyət daşıyırlar.

**CASE -AİHM**

Sağlamlıq barədə məlumatların konfidensiallığına riayət edilməsi Konvensiyanın iştirakçısı olan bütün dövlətlərin hüquq sistemlərinin mühüm prinsipidir. Bu təkcə pasiyentin şəxsi həyatının toxunulmazlığı üçün deyil, həm də onun tibb personalına və bütövlükdə səhiyyə xidmətlərinə olan inamının qorunub saxlanması üçün vacibdir. Belə məlumatlar qorunmazsa, tibbi yardıma ehtiyacı olanlar müvafiq müalicə almaları üçün zəruri olan, şəxsi və intim xarakter daşıyan bu cür məlumatları açıqlamaqdan və hətta tibbi yardım üçün müraciət etməkdən çəkinə bilərlər. Bununla da onlar öz sağlamlıqlarını və söhbət yoluxucu xəstəliklərdən getdiyi hallarda həm də cəmiyyətin sağlamlığını təhlükə altında qoya bilərlər. Buna görə də sağlamlıq barədə fərdi məlumatların Konvensiyanın 8-ci maddəsində yer alan təminatlara zidd formada təqdim edilməsinin və ya açıqlanmasının qarşısını almaq üçün daxili qanunvericilikdə müvafiq təminatlar nəzərdə tutulmalıdır (Z Finlandiyaya qarşı, 95-ci bənd). [1]

**Nəticə**

Ümumdünya Səhiyyə Təşkilatının Nizamnaməsində müəyyən edilmiş dir ki, sağlamlıq təkcə xəstəliklərin və ya fiziki qüsurların olmaması deyil, həm də tam fiziki, ruhi və sosial rifahdır. Sağlamlığın ən yüksək səviyyəsinə malik olmaq irqindən, dinindən, siyasi əqidə sin dən, iqtisadi və ya sosial vəziyyətindən asılı olmayaraq, hər bir insanın əsas hüquqlarından biridir.

Azərbaycan Respublikası Prezidentinin 29 dekabr 2012-ci il tarixli 800 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: Gələcəyə Baxış" İnkişaf Konsepsiyasının 7.1-ci bəndində əhalinin sağlamlığı və səhiyyə sahəsində qarşıda duran başlıca vəzifələr öz əksini tapmışdır.

7.1. Əhalinin sağlamlığı və səhiyyə sahəsində qarşıda duran başlıca vəzifələr

Bu məqsədlə səhiyyəyə ayrılan vəsaitin ümumi daxili məhsulda payının dinamik şəkildə artırılması və həmin vəsaitin səmərəli və məqsədyönlü istifadəsini təmin edən mexanizmlər yaradılması nəzərdə tutulur. Səhiyyənin maddi-texniki bazasının gücləndirilməsi üçün tibb müəssisələrinin tikintisi, əsaslı təmiri və yenidən qurulması, onların müasir tibbi avadanlıqla təchiz edilməsi həyata keçiriləcək, eyni zamanda səhiyyə islahatları planlı şəkildə davam etdiriləcəkdir. Səhiyyənin idarə olunmasında həddən artıq mərkəzləşmədən imtina edilməsi, idarəetmədə sırf icraçı funksiyalarının inzibati-iqtisadi formalarla əvəz olunması üçün tədbirlər görüləcək və bununla da müxtəlif səviyyəli idarəetmə strukturlarının səlahiyyətlərinin səmərəli şəkildə ayrılması və onların fəaliyyətinin əlaqələndirilməsi təmin ediləcəkdir.

İcbari tibbi sığortaya keçilməsi təmin ediləcək və onun əsasında tibbi yardımın keyfiyyətinə, pasiyentlərin hüquqlarının qorunmasına nəzarət mexanizmlərinin təkmilləşdirilməsinə şərait yaradılacaqdır. Səhiyyə sisteminin islahatları nəticəsində əsasən stasionar yardıma istiqamətləndirilmiş təbabətdən ilkin tibbi-sanitariya yardımının üstünlük təşkil etdiyi təbabətə keçilməsi reallaşdırılacaq, ailə həkimi praktikasının genişləndirilməsinə müvafiq şərait yaradılacaqdır. Eyni zamanda ambulator-poliklinika xidmətinin təkmilləşdirilməsi üçün fəal və məqsədyönlü iş aparılacaqdır.

Dövlət tərəfindən sosial xəstəliklərə (diabet, hemofiliya, talassemiya, onkoloji xəstəliklər, immunoprofilaktika, hemodializ, vərəm, QİÇS və s.) qarşı mübarizə, əhalinin sağlamlaşdırılması üzrə profilaktik tədbirlər, sanitariya maarifi işi, narkomaniya, alkoqolizmə və tütünçəkməyə qarşı mübarizə müxtəlif dövlət proqramları vasitəsilə həyata keçiriləcəkdir. Yoluxucu xəstəliklərin profilaktikası məqsədi ilə profilaktika tədbirləri gücləndiriləcək, müvafiq tədbirləri nəzərdə tutan 2015-2020-ci illər üçün sanitariya-epidemioloji xidmətin İnkişaf Proqramı hazırlanacaqdır. Bununla yanaşı, qeyri-infeksion xəstəliklərə (tütünçəkmə, piylənmə, fiziki fəallığın olmaması, spirtli içkilərdən sui-istifadə və s.) qarşı mübarizəyə dair 2013-2020-ci illəri əhatə edən xüsusi Strategiya qəbul ediləcək, sağlam həyat tərzi üçün şərait və imkanlar yaradılması, əhalinin öz sağlamlığı üçün məsuliyyətinin və marağının artırılmasından ötrü maarifləndirmə işlərinin genişləndirilməsi istiqamətində əməli tədbirlər görüləcəkdir.

Ana və uşaqların sağlamlığının yaxşılaşdırılmasına dair 2013-2020-ci illəri əhatə edən Dövlət Proqramı qəbul ediləcək, uşaq və yeniyetmələr arasında profilaktik müayinələr və dispanserləşdirmə aparılması işi gücləndiriləcəkdir. Yoluxucu xəstəliklərə qarşı mübarizənin gücləndirilməsi məqsədi ilə uşaqlar arasında immunoprofilaktika işlərinin aparılması üçün müvafiq tədbirlər həyata keçiriləcəkdir. Uşaqlıq dövrünə xas olan əlilliyin erkən profilaktikası və müalicəsi üzrə Milli Fəaliyyət Planı (2014-2020-ci illər) hazırlanacaq, uşaqlara göstərilən stasionar xidmətin daha da yaxşılaşdırılması ilə bağlı uşaq tibb müəssisələri profilləşdiriləcəkdir.

Bunlarla bərabər, əsas həyati vacib dərman preparatlarının bütün əhali qrupları üçün fiziki və iqtisadi cəhətdən əlçatan olmasının, həmçinin dərman preparatlarının keyfiyyəti, səmərəliliyi və təhlükəsizliyinin təmin edilməsi məqsədi ilə onların vahid qeydiyyat sisteminin yaradılması üçün zəruri tədbirlər görüləcəkdir. Dərman bazarına lisenziyalaşmamış və aşağı keyfiyyətli dərman preparatlarının daxil olmasının qarşısının alınması istiqamətində əməli addımlar atılacaqdır.

Səhiyyə sahəsində kadr təminatının təkmilləşdirilməsi ən vacib məsələ kimi diqqət mərkəzində olacaq, tibb mütəxəssislərinin bilik və bacarıqlarının daim yüksəldilməsi üçün müvafiq mexanizmlər yaradılacaq, o cümlədən xarici ölkələrdə təlimlər təşkil ediləcəkdir. Kənd yerlərində işləyən həkim və orta tibb işçiləri üçün uyğun həyat şəraitinin yaradılması üzrə müvafiq işlər görüləcək və təşviqləndirici maddi təminat mexanizmləri müəyyənləşdiriləcəkdir. Tibb işçilərinin əməyinin son nəticəyə görə qiymətləndirilməsi prinsipinin tətbiq olunması üçün tədbirlər görüləcəkdir.

Əhalinin sağlamlığının monitorinqi üzrə müxtəlif tibbi elektron registrlər, vətəndaşların "elektron sağlamlıq kartı" sistemi və vahid səhiyyə informasiya sistemi yaradılacaqdır.

Fikrimizcə, "Əhalinin sağlamlığının qorunması haqqında" qanunun 1-ci maddəsində təsbit edilmiş prinsiplərin dairəsini bir qədər genişləndirərək sağlamlığın qorunmasının aşağıdakı prinsiplərini fərqləndirmək olar:

- sağlamlığın qorunması sahəsində qanunçuluğun təmin edilməsi;
- humanizm;
- ədalət;
- sağlamlığın qorunması sahəsində bütün vətəndaşların hüquq bərabərliyi;
- tibbi yardım sahəsində insan və vətəndaş hüquqlarına dövlət təminatı və bu təminatla bağlı hüquqi və fiziki şəxslərin, dövlət orqanlarının məsuliyyəti;
- pasiyentin həkim seçmək hüququnun təmin edilməsi;
- tibbi yardımın ümumiliyi və hamı üçün mümkünlüyü;
- həkim-pasiyent əlaqələrində konfidensiallığın təmin olunması;
- tibbi yardım sahəsində profilaktik tədbirlərin həyata keçirilməsi;
- hər kəsin sağlam ətraf mühitdə yaşamaq hüququnun təmin olunması;

İstənilən halda həkimlər öz məsuliyyətini dərk etməli, öz peşələrini mənəvi və hüquqi əsaslara uyğun aparmalı, zəruri tibbi müdaxilələri düzgün və vaxtında aparmlıdır.

Həkimlər -Həkim sirrini qorumalı, yalnızca qanunda göstərilən istisna hallarda həkim sirrini başqalarına ötürməlidir.

Pasiyentlər və onların yaxınları -bütün ola bilərək mənfi nəticələri həkim səhvi adlandırmamalı, bəzi mənfi situasiyaların həkimlərin peşəkarlıq və məsuliyyətlərindən asılı olmadığını dərk etməlidir.

**İSİFADƏ OLUNMUŞ MƏNBƏLƏR**

1. HUDOC qərarları
2. https://www.echr.coe.int/documents/d/echr/Guide_Art_8_AZE
3. AR Konstitusiyası
4. "Səhiyyə sahəsinə aid olan qulluqçu vəzifələrinin və fəhlə peşələrinin Vahid Tarif-İxtisas Sorğu Kitabçası"nın təsdiq edilməsi barədə
5. AR Cinayət Məcəlləsi
6. Qanın, qan komponentlərinin donorluğu və qan xidməti haqqında AR qanunu
7. AR Mülki Məcəllə -1112-ci maddə
8. Əhalinin sağlamlığının qorunması haqqında AR qanunu
9. Cinayət məcəlləsi (kommentariya) - maddə 135, 136, 138, 141, 142, 172-maddələrinin şərhi

10. İnzibati xətalar məcəlləsi
11.Donor orqanların transplantasiyasını həyata keçirən ixtisaslaşdırılmış tibb müəssisələrinin Siyahısı" nın təsdiq edilməsi haqqında NK qərarı
12.Konst. məhkəməsi plenum-CM 142-ci maddənin 53-cü maddə ilə qarşılıqlı əlaqəli şəkildə şərh olunmasına dair
13.https://www.echr.coe.int/documents/d/echr/Guide_Art_8_AZE
14.https://aak.gov.az/upload/dissertasion/h_quq_elml_ri/Fidan_AVTOREFERAT_AZ.pdf
15. https://www.injuria.az/news/tibb-huququ-yaranmasi-problemleri-ve-inkisaf-perspektivleri
16.https://www.google.com/url?sa=t&rct=j&q=&esrc=s&source=web&cd=&ved=2ahUKEwjc6t TG_oOFAxXJbPEDHb_5BJY4KBAWegQIFBAB&url=https%3A%2F%2Flhri.az%2Faz%2Flibrary-download%2F179&usg=AOvVaw1hJADiBESPXnU4KHzIUsu1&opi=89978449
17.https://aak.gov.az/upload/dissertasion/huq/huq_n_afe_29_09_15.pdf
18.https://az.trend.az/azerbaijan/society/2122676.html
19.https://az.wikipedia.org/wiki/Həkim
20.https://az.wikipedia.org/wiki/Hippokrat_andı
21.https://az.wikipedia.org/wiki/Evtanaziya
22.https://azedu.az/az/news/13944-hekim-olmaq-isteyenlerin-nezerine-hansi-ixtisas-ucun-nece-il-oxumalidirlar
23.https://www.e-huquq.az/az/news/maariflendirme/4737.html
24.https://ict.az/uploads/konfrans/e_tibb/28.pdf

# AİLƏ MEDİASİYASI

**FƏRİD ƏHMƏDOV ZİYAT OĞLU**
Bakı Dövlət Universiteti
Hüquq fakultəsi/Beynəlxalq ümumi hüquq kafedrasının doktorantı
*feridehmedov29@mail.ru*
BAKI,AZƏRBAYCAN

**XÜLASƏ**

Mediasiya mübahisələrin məhkəmədən kənar alternativ həll yollarından biridir. Ailə münasibətləri mediasiyanın tətbiq edilməsi ilə bağlı olan əsas sahələrdəndir. Evli cütlüklər, valideynlər və övladlar, qardaş və bacılar, həmçinin digər qohumlar arasındakı münasibətlər adətən şəxsi maraqlar və yüksək emosionallıqla bağlı olur. Məlumdur ki, ailə həyatında çox tez-tez fikir ayrılıqları olur, bu isə psixoloji və hüquqi problem yaradır. Bəzən uzanan və çətin həll edilən münaqişələr ailə münasibətlərində böhrana gətirir. Bu zaman ən müdrik çıxış yolu ailə mediatoruna müraciət etmək hesab edilir. Mediasiya ailə münaqişələrini məhkəməyə müraciət etmədən həll etməyə kömək edir. Ailə mediasiyası mediasiyanın digər formalarından onunla fərqlənir ki, burada münasibətlər psixologiyasına xüsusi diqqət yetirilir, mübahisənin həlli zamanı mediator psixoloji metodlardan istifadə edir. Ailə mediatoru ər-arvad münasibətlərini tənzimləməyə çalışır, bu zaman o, ilk növbədə hər iki tərəfə qulaq asır, onların mövqeyini, tələb və arzularını aydınlaşdırır, emosiyaları sakitləşdirir, kompromis yaratmağa çalışır, vəziyyəti kənardan öyrənir, tərəflərin razılığı əsasında məsələnin yeni həll variantlarını və imkanlarını təqdim edir, danışıqların məxfiliyini qoruyur. Tərəflər mediasiya sessiyaları vasitəsilə məhkəmələrə nisbətdə daha az xərc çəkərək mübahisələrini arzu etdikləri zaman və formada həll edə bilərlər. Məqalədə müəllif tərəfindən ailə mediasiyasının inkişaf tarixindən, ailə

mediasiyasının üstünlüklərindən, ailə mediasiyasının prinsiplərindən, mediasiya prosesi zamanı diqqət edilməli olan məsələlərdən, ailə mediasiyası zamanı qəbul edilən qərarların uşaqların ən yüksək maraqlarına əsaslanması, ailə mediasiyasında uşaqların ən yüksək maraqların müəyyən edilməsi ilə əlaqədar mövcud yanaşmalardan bəhs olunmuşdur.

**AÇAR SÖZLƏR: ailə mediasiyası, mediator, uşağın ən yaxşı maraqları, barışıq sazişi**
**KEY WORD: family mediation, mediator, child's best interests, settlement agreement**

## GIRIŞ

Mediasiyanın tətbiq edildiyi mübahisələrdən biri ailə mübahisələri hesab edilir. Ailə münasibətlərində mediasiyanın tətbiqi qlobal miqyasda göstərilən mediasiya xidmətlərinin əsas sütunlarından birini təşkil edir. Tarixən ailə mediasiyasının ilk dəfə coğrafi olaraq harada inkişaf etdiyi məlum deyil. Qeyd edilməlidir ki, Yunanıstanda Krit adasında sasrnos adlanan ailələr arasında köməkli və məxfi danışıq sxemi eramızdan əvvəl 12-ci əsrdən tətbiq edilir və vendettaların (qədim yerli qanunlara uyğun olaraq ailə namusunu qorumaq üçün törədilən cinayətlər) qarşısını almaq və ya həll etmək üçün istifadə olunur. Sasmos prosesində iştirak edən iki ailə arasında, prosesin qeyri rəsmi olmasına və qanuni icranın olmamasına baxmayaraq, sastis adlı yerli vasitəçinin köməyi ilə razılaşma əldə edildikdə razılaşma tərəflər və yerli ictimaiyyət tərəfindən məcburi hesab olunur. Belə ki, ailə mediasiyası min illərdir ki, dünyanın müxtəlif mədəniyyətlərində müxtəlif formalarda mövcuddur. Ailə mediasiya sistemi mübahisəli ailələrə mübahisələrin həlli mexanizminin təmin edilməsinə diqqət yetirir. Boşanma mediasiyası da ailə mediasiyası xidmətlər sisteminin bir hissəsini təşkil edir.

## TƏDQIQAT METODU

Ailə mediasiyası mediator kimi tanınan neytral üçüncü tərəfin münaqişələrin və mübahisələrin razılaşma yolu ilə həllində ailələrə kömək etdiyi bir prosesdir. Ailə münasiətlərində mediasiyanın tətbiqindən tərəflərin boşanması və ya müvəqqəti ayrılması zamanı, həmçinin uşaqların hansı valideynin yanında saxlanılması, uşaqla ünsiyyətin müəyyən edilməsi, aliment, əmlak bölgüsü və sair ilə bağlı mübahisələr və ailə ilə bağlı digər mübahisələr zamanı istifadə olunur. Ailə mediasiyası kommersiya, əmək, mülki, inzibati və s. mediasiya formalarından ilk növbədə emosional və predmetli amillərlə fərqlənir. Mediasiya tərəflərə öz emosiyalarını ifadə etməyə şərait yaradır. Ailə mediasiyasında emosional amillərin faizi daha yüksək olur. Buna görə də tarazlığı gözləmək lazımdır. Ailə mediasiyasının əsas fərqləndirici cəhətlərindən biri valideynlik məsuliyyətilə əlaqədar tərəflərin kompromis tapmağa çalışmasıdır. Mediator ünsiyyəti asanlaşdırır, məhsuldar dialoqu təşviq edir və tərəflərə qarşılıqlı məqbul razılaşmaların əldə edilməsinə kömək edir. Dünyada adətən ailə mediasiya prosesi ilkin məsləhətləşmə ilə ilə başlayır, bu müddət ərzində mediator tərəflərin perspektivlərini, narahatlıqlarını və arzu olunan nəticələri anlamaq üçün hər bir tərəflə ayrıca görüş təyin edə bilər. Məhz bu fərdi sessiya mediatora mediasiyanın uyğunluğunu qiymətləndirməyə və hər hansı ilkin sualları və ya narahatlığı həll etməyə imkan verir. İlkin mediasiya sessiyasından sonra hər iki tərəf mediasiyaya davam etməyə razılaşdıqdan sonra birgə iclaslar təyin olunur. Mediator konstruktiv ünsiyyət üçün təhlükəsiz və əlverişli mühit yaradaraq neytral vasitəçi kimi çıxış edir. Birgə iclaslar zamanı mediator əsas məsələlərin müəyyənləşdirilməsinə kömək edir və tərəfləri öz narahatlıqlarını, maraqlarını və prioritetlərini ifadə etməyə təşviq edir. Bu addım bütün perspektivlərin müəyyən edilməsini və başa düşülməsini təmin edir, empatiyanı gücləndirir və yaradıcı həllərin araşdırılmasına şərait yaradır. Tərəflər arasında ailədaxili əsas problemlərin aydın şəkildə başa düşülməsi ilə mediator potensial həllərin yaradılmasında tərəflərə rəhbərlik edir. Mediator müxtəlif variantları tədqiq etməklə, alternativləri nəzərdən keçirməklə və ailənin xarakterik xüsusiyyətlərini nəzərə alaraq, imkanlar dairəsini genişləndirməyə kömək edir və problemlərin birgə həllini təşviq edir. Müzakirələr irəlilədikcə mediator tərəflər üçün qarşılıqlı məqbul razılaşmanın əldə edilməsinə köməklik edir. Mediasiya nəticəsində əldə edilən barışıq sazişində uşaqlarla bağlı valideynin hüquq və vəzifələri, uşağın yaşayış yerinin, uşaqla ünsiyyət qaydasının müəyyən edilməsi, maliyyə məsələləri, əmlak bölgüsü və digər xüsusi narahatlıqlar kimi məsələr əks edilir. Mediator tərəflər arasında barışığın ədalətli, balanslaşdırılmış və hüquqi cəhətdən əsaslı olmasını təmin edir, lakin tərəflərə hüquqi məsləhət vermir (Hansen, Grebe, 1985).

Ailə mediasiyası konstruktivdir və münaqişə tərəfləri üçün şəxsi inkişaf və sosial inkişaf şansını ehtiva edir. Bundan əlavə, ailə mübahisələrinin mediasiya vasitəsilə həlli mübahisələrin digər üsullarla müqayisədə daha sərfəli və daha sürətli həlli vədinə malikdir, buna görə də tərəflər mediasiyanın

məhkəmə proseslərindən daha sürətli və daha ucuz olacağını gözlədikləri üçün mediasiyaya üstünlük verirlər. Mediasiyaya məhkəməyə müraciət etməyə nisbətdə üstünlük verməyin başqa bir səbəbi məxfilik və qarşı tərəflə yaxşı münasibət saxlamaq arzusu ola bilər ki, bu da ailə mübahisələrində xüsusilə vacibdir (Robert, 2012).

Ailə mediasiyası hüquqi xidmətlər göstərilməsinin bir hissəsi deyildir, çünki mediasiya münaqişənin daha geniş tərifinə, eləcə də onun həllinə daha dolğun yanaşmaya imkan verir. Məhz buna görə də bəzi ailə mediatorları mediasiyaya müalicəvi ölçü gətirir, tərəfləri əsas emosional problemləri tanımağa və onlarla üz-üzə gəlməyə və uyğun olduqda, münasibətləri üzərində işləməyə sövq edir. Ailə mediasiyası ümumiyyətlə qeyri-qanuni emosional və münasibətlər məsələlərinə böyük diqqət ayırır və ailə mübahisələri konteksində mediasiya hər iki tərəfin barışmasına və yenidən birləşməsinə səbəb ola bilər (Rau, Sherman, Peppet, 2002). Çox xüsusi emosional tərəfi olan ailə münaqişələrində mediatorun peşəkarlığı şübhəsiz olmalıdır, çünki mediatorun neytrallığı böyük rol oynayır və ünsiyyət prosesində mediatorun şəxsi xüsusiyyətləri onun tərəflərə münasibətinə təsir etməməli və zərər vurmamalıdır.

Ailə mediasiyası bir qayda olaraq 4 prinsipə - könüllülük, mediatorun qərəzsizliyi və neytrallığı, konfidensiallıq və tərəflərin qərar qəbul etməsi prinsiplərinə əsaslanır. Könüllülük prinsipi həm tərəflərə, həm də mediatora münasibətdə tətbiq olunur. Bu prinsipin təzahürü ondan ibarətdir ki, hər bir tərəf, eləcə də mediator mediasiya prosesinə mütləq könüllülük əsasında daxil olur. Tərəflər könüllü olaraq mediasiyadan imtina edə bilərlər və bu halda tərəflər mediasiyanı davam etdirməkdən imtinanın əsaslarını qeyd etmək məcburiyyətində deyildirlər. Məhkəmə prosesindən fərqli olaraq, bütün mübahisə edən tərəflərin mediasiya prosesinə daxil olması könüllüdür və tərəflər mediatorun seçilməsində sərbəstdirlər. Bu nöqteyi-nəzərdən mediasiya arbitraja bənzəyir. Heç kim tərəfləri iştirak etmək arzuları olmadıqları təqdirdə mediasiyada iştirak etməyə məcbur edə bilməz. Bu prinsip ondan ibarətdir ki, bütün qərarlar yalnız tərəflərin qarşılıqlı razılığı əsasında qəbul edilir və hər bir tərəf istənilən vaxt mediasiyadan imtina edə və danışıqları dayandıra bilər. Könüllülük prinsipi həm mediasiyada iştirak etmək barədə qərar qəbul edilərkən, həm də sözügedən mübahisə ilə bağlı tərəflərin qərar qəbul etmə prosesi ilə bağlı, habelə tərəflər arasında barışıq sazişinin bağlanması zamanı kənardan heç bir məc buriyyətin olmamasını ehtiva edir. Mediatorun qərəzsizliyi dedikdə mübahisələrin ədalətli, obyektiv, konstruktiv, hərtərəfli və buna

görə də ən effektiv həlli proseduru üçün ən mühüm təminatlardan biridir. Mediatorların Avropa Davranış Kodeksi bəyan edir ki, mediator hər zaman tərəflərə qarşı qərəzsiz hərəkət etməli və mediasiya prosesinə münasibətdə bütün tərəflərə bərabər xidmət göstərməyə sadiq olmalıdır. Mediatorun neytrallığı dedikdə isə qeyd etmək lazımdır ki, mediator hər iki tərəfə qarşı neytral olmalıdır. Belə ki, hər hansı qərəzlilik istisna edilməlidir. Heç bir vasitə mediatoru tərəflərdən heç birinə qərəzli qoymamalıdır. Buna görə də mediatorun tərəflərdən hədiyyə və ya hər hansı digər maddi nemətləri qəbul etmək hüququ yoxdur. Konfidensiallıq prinsipi ilk növbədə ondan ibarətdir ki, mediasiya prosesində əldə edilmiş və məlum olmuş məlumat yalnız bu proses çərçivəsində qalır və müəyyən hallar istisna olmaqla, nə tərəflər, nə də mediator tərəfindən başqa məqsədlər üçün istifadə edilə bilməz. Ailə mediasiyasının əsaslandığı növbəti prinsip olan tərəflərin qərar qəbul etməsi prinsipinə münasibətdə qeyd edilməlidir ki, tərəflər qərarların qəbul edilməsində sərbəstdirlər və qarşılıqlı razılıq əsasında tərəflər yekunda qərar qəbul edilir.

Ailə mediasiyasının predmetini həmçinin, valideynlik hüquq və vəzifələrinin həyata keçirilməsi qaydası, uşağın yaşayış yerinin müəyyən edilməsi, uşağın və əmək qabiliyyəti olmayan digər ailə üzvlərinin saxlanılması qaydası, ailə münasibətlərindən irəli gələn digər mübahisələr təşkil edir. Nikah müqaviləsinə mediasiyaya dair şərtlər daxil edilə bilər. Uşağın maraqlarına toxunan ailə münasibətlərindən irəli gələn mübahisələr üzrə mediator yerli icra hakimiyyətlərinin qəyyumluq və himayə orqanlarının rəyini alır. Əgər ailə münasibətlərindən irəli gələn mübahisələr zamanı uşağın normal böyüməsinə və inkişafına təhlükə yaradan, yaxud onun maraqlarına zərər vura bilən hallar mövcuddursa və ya belə halların yaranma ehtimalı olarsa, mediator bu barədə mediator yerli icra hakimiyyətlərinin qəyyumluq və himayə orqanlarına məlumat verməyə borcludur və mediator göstərilən işlər üzrə mediasiya prosesinin həyata keçirilməsindən imtina edə bilər. Həmçinin mediator uşağın böyüməsinə, inkişafına və digər maraqlarına toxunan barışıq sazişini yerli icra hakimiyyətlərinin qəyyumluq və himayə orqanlarına təqdim etməyə borcludur.

Ailə mediasiyasında uşağın ən yaxşı maraqlarının təmin edilməsi əsas priotet məsələlərdən biri hesab edilir. Qeyd edilməlidir ki, Birləşmiş Millətlər Təşkilatının "Uşaq hüquqları haqqında" Konvensiyasının 3-cü maddəsinə əsasən, uşaqlarla bağlı bütün hərəkətlərdə uşağın ən yaxşı mənafeləri əsas nəzərə alınmalıdır. Uşağın ən yüksək maraqlarının qiymələndirilməsi Konvensiya və onun əlavə protokollarında əks olunan hüquqlara tam hörmət edilməklə həyata keçirilməlidir. Bundan əlavə, uşaqlar homojen qrup olmadığına görə, uşağın ən yüksək maraqları ayrı-ayrılıqda qiymətləndirilməli və konkret uşağın ehtiyaclarına uyğunlaşdırılmalıdır. Uşaqların rifahı, təcrübələri və iştirakı ilə bağlı standart məlumatlar həmişə fərdi hallarda uşağın ən yaxşı maraqlarına çatmaq üçün əsas olmaya bilər. Uşağın ən yüksək maraqları konsepsiyasının tam tətbiqi uşağın bütöv fiziki, psixoloji, əxlaqi və mənəvi bütövlüyünü təmin etmək və onun inkişafını təşviq etmək üçün bütün iştirakçıları cəlb edən hüquqa əsaslanan yanaşmanın inkişaf etdirilməsini tələb edir. Uşağın ən yüksək maraqlarına fərdi və hər bir halda baxılmalıdır. Bütün hüquqlar müstəqil dəyərə malik olsa da, ən yaxşı maraqların qiymətləndirilməsinin elementləri bir-biri ilə və müəyyən hallarda ziddiyyət təşkil edə bilər. Bütün elementlər hər bir halda uyğun deyil və müxtəlif hallarda müxtəlif elementlər müxtəlif üsullarla istifadə edilə bilər. Məhz uşağın ən yüksək maraqlarının təmin edilməsi ailə mediasiyası prosesin əsas tərkib hissəsinə çevrilmişdir. Bəzi müəlliflərin fikrincə ailə mediasiyasında uşağın ən yaxşı maraqlarının müəyyən edilməsinə dair iki yanaşma- uşağın ən yüksək maraqlarının müəyyən edilməsinin asanlaşdırıcı mediasiya yanaşması və qiymətləndirici mediasiya yanaşması mövcuddur. Asanlaşdırıcı mediatorun əsas vəzifəsi valideynlər arasında danışıqları və problemin həlli prosesini asanlaşdırmaqdır. Mediator tərəflər arasında ünsiyyəti asanlaşdırır və adətən strukturlaşdırılmış prosesdə onlara öz maraqlarını, narahatlıqlarını, ehtiyaclarını və həll yollarını ifadə etmək və bir-birini səmimi dinləmək və anlamaq üçün səlahiyyətlər verir. Asanlaşdırıcı mediasiya adətən maraq əsasında olur. Bu yanaşmada mediator tərəfləri müəyyən nəticəyə yönəltmir və məlumat vermir. Mediator məsələ ilə bağlı öz rəyini və ya həlli təklifini bildirmir və üçüncü şəxsin işi necə həll edəcəyini qiymətləndirmir. Mediator tərəflərin fikirlərini və ya təkliflərini qiymətləndirmir. Mediator prosesesin aparılmasına, tərəflər isə müzakirə olunan məsələlərin məzmun və nəticəsinə görə məsuliyyət daşıyır. Bu konteksdə mediatorun əsas vəzifəsi valideynlərə öz narahatlıqlarını ifadə etməyə və qiymətləndirməyə kömək etməkdir. Uşaq hüququ nöqteyi-nəzərindən, uşağın hüquqları müzakirələrin bir hissəsi olmadıqda, ən yaxşı maraqların qiymətləndirilməsi aparılmadıqda və uşağın iştirak etmək hüququ nəzərə alınmadıqda müəyyən problemlər yaranır. Mediatorun neytrallığı və obyektivliyi, eləcə də məxfiliyi asanlaşdırıcı mediatorun rolunu məhdudlaşdırır. Mediator valideynlərə neytral şəkildə suallar verməyə, onların ünsiyyətini asanlaşdırmağa və özlərinin və bir-birinin maraqlarını anlamağa kömək etməlidir. Bu yanaşmaya əsasən, mediator valideynlərə məsləhət verməməli, uşağın hüquqları haqqında məlumat verməməli və ya ən yaxşı maraqların qiymətləndirilməsini aparmamalıdır. Müzakirə mövzuları və məlumatların təqdim edilməsi valideynlərdən asılı olduğundan, asanlaşdırıcı mediasiya yanaşması yaxşı maraqların qiymətləndirilməsinə və uşağın hüquqlarının müdafiəsinə qismən və ya tamamilə məhəl qoymur. İkinci yanaşma olan qiymətləndirici mediasiya dedikdə mediatorun diqqətinin münaqişənin mahiyyətinə və həllə nail olmaq üçün nəyin zəruri olduğuna yönəldiyi analitik proses nəzərdə tutulur. Bu yanaşma mediatorun həm mediasiya prosesini asanlaşdırmasını, həm də onun məzmunu ilə bağlı mühakimə yürütmək iqtidarında olmasını nəzərdə tutur. Qiymətləndirici mediator tərəflərə məlumat verir və əsas diqqəti razılaşmaya yönəldir. Tərəflər mediator tərəfindən ən yaxşı və ya düzgün hesab edilən müəyyən nəticənin əldə edilməsinə yönəldilə bilər. Təlimatlar və məlumatların verilməsi ilə yanaşı, qiymətləndirici mediator qiymətləndirmələr apara bilər. Uşaq hüququ nöqteyi-nəzərindən mediator valideynlərə uşağın hüquqları haqqında məlumat verə bilər və ən yaxşı maraqların qiymətləndirilməsi aparılmalıdır. Qiymətləndirici mediator həmçinin valideynlərin uşaq hüquqlarını necə dəstəklədiyini qiymətləndirə, onları diqqətini övladına yönəltməyə istiqamətləndirə və həll yolları üçün məlumat və təkliflər verə bilər. Ailə mediaaiyasında uşaq hüququ nöqteyi-nəzərindən, ən yaxşı maraqların qiymətləndirilməsi aparılarsa və uşağa aid olan bütün hüquqlar, nəzərə alınarsa, vasitəçilik yolu ilə uşağın ən yaxşı maraqlarının təmin edilməsinə nail olmaq olar.

**NƏTICƏ**

Yuxarıdakılara əsasən qeyd edirik ki, xərclərə və vaxta qənaət, konfidensiallıq, tərəflərin müstəqil şəkildə qərar qəbul edə bilməsi, tərəflərin mediasiya prosesində nəzarət etmək imkanının olması ailə mediasiyasının əsas üstünlükləri hesab edilir.

**ƏDƏBIYYAT SIYAHISI**

15.“Mediasiya haqqında” Azərbaycan Respublikasının 2019-cu il 29 mart tarixli 1555-VQ nömrəli Qanunu

16.A. S. Rau, E. F. Sherman, S. R. Peppet. (2002). Mediation and Other Non-Binding ADR Processes. Foundation Press, p. 1–5.

17.B. Robert. (2012). The Natural History of Negotiation and Mediation: The Evolution of Negotiative Behaviors, Rituals and Approches. https://www.mediate.com/, 30p.

18.James C. Hansen, Sarah Childs Grebe. (1985). Divorce and Family Mediation. Aspen Systems Corporation, 148p.

19.The United Nations Convention on the Rights of the Child, dated 20 november 1989

# AZƏRBAYCANDA GÖMRÜK SAHƏSİNDƏ TƏTBİQ OLUNAN YENİLİKLƏR: MƏQSƏD VƏ ƏLDƏ OLUNAN NƏTİCƏLƏR

**Əhmədli Aytən Ənvər**
Dövlət Gömrük Komitəsinin Akademiyası, Bakı

**XÜLASƏ**

Azərbaycan Respublikasında sahibkarlıq fəaliyyətinin inkişafı,o cümlədən idxal-ixrac əməliyatlarının inkişafı sahəsində bir sıra yeniliklər tətbiq olunur ki, bu da öz növbəsində gömrük orqanlarının fəaliyyətinin də daha yüksək səviyyədə həyata keçirilməsini zəruri edir.

Təhlükəsizlik və idxal-ixrac əməliyyatında prosesin daha da surətləndirilməsi məqsədi ilə Azərbaycanda aparılan islahatlar nəticəsində yeni fəaliyyətlər istifadəyə verilmişdir.

Sözü gedən məsələdə vacib rol oynayanlar qismində Yaşıl dəhliz, Səlahiyyətli iqtisadi operator, Bir pəncərə prinsipi xüsusi rola malikdir.

Bütün bunlar həm prosesin surətli və təhlükəsiz reallaşdırılmasına eyni zamanda fəaliyyət zamanı vaxt itkisinin qarşısını almaqla operativliyinin təmin olunmasına şərait yaradır. Dövlət həmçinin bu yenilikləri tətbiq etməklə fiskal siyasət həyata keçirir.

Müasir dövrdə aparılan islahatlar öz növbəsində gömrük işində demək olar ki 100% kağızsız yəni elektron xidmətlərin artmasına gətirib çıxarmışdır.

İKT sahəsinin inkişafı fəaliyyətin daha səmərəli təşkilinə şərait yaratmışdır.

Bütün bu yeniliklərin tətbiq edilməsində əsas məqsədlər şəffaflığın təmin edilməsi, sahibkarlıq mühitinin daha da yaxşılaşdırılması, vətəndaşların məmnunluğunun təmin olunması və ən əsası isə korrupsiya və rüşvət hallarının aradan qaldırılmasından ibarətdir.

**Açar sözlər:** gömrük xidməti, yaşıl dəhliz, inkişaf, hesabat

**Аннотация**

В Азербайджанской Республике применяется ряд инноваций в сфере развития предпринимательства, в том числе развития импортно-экспортных операций, что в свою очередь обуславливает необходимость осуществления деятельности таможенных органов на более высоком уровне.

В результате проведенных в Азербайджане реформ были введены в действие новые виды деятельности с целью дальнейшего ускорения процесса в сфере безопасности и импортно-экспортных операций.

Принцип «Зеленый коридор», «Уполномоченный экономический оператор», «Одно окно» имеют особую роль, поскольку играют важную роль в этом вопросе.

Все это позволяет быстро и безопасно реализовать процесс, а также предотвратить потери времени при работе и обеспечить ее эффективность. Государство также реализует налогово-бюджетную политику, применяя эти нововведения.

Реформы, проведенные в современную эпоху, в свою очередь, привели к увеличению почти 100% безбумажных, то есть электронных, услуг в таможенной работе.

Развитие сферы ИКТ создало условия для более эффективной организации деятельности.

Основными целями внедрения всех этих нововведений являются обеспечение прозрачности, дальнейшее улучшение бизнес-среды, обеспечение удовлетворенности граждан и, самое главное, устранение случаев коррупции и взяточничества.

**Ключевые слова:** таможенная служба, зеленый коридор, развитие, отчетность.

**SUMMARY**

In the Republic of Azerbaijan, a number of innovations are applied in the field of development of entrepreneurship, including the development of import-export operations, which in turn necessitates the implementation of the activities of customs bodies at a higher level.

As a result of the reforms carried out in Azerbaijan, new activities have been put into use with the aim of further speeding up the process in security and import-export operations.

The Green Corridor, Authorized Economic Operator, One Window principle have a special role as those who play an important role in this matter.

All this allows for the fast and safe implementation of the process, as well as preventing time loss during operation and ensuring its efficiency. The state also implements fiscal policy by applying these innovations.

The reforms carried out in the modern era, in turn, have led to the increase of almost 100% paperless, i.e. electronic, services in customs work.

The development of the ICT field has created conditions for more efficient organization of activities.

The main goals of implementing all these innovations are to ensure transparency, to further improve the business environment, to ensure the satisfaction of citizens and, most importantly, to eliminate cases of corruption and bribery.

**Keywords:** customs service, green corridor, development, reporting

Azərbaycanda qeyri-neft sektorunun inkişafı ilə əlaqədar həyata keçirilən tədbirlər fonunda gömrük orqanları da ölkəmizin iqtisadi və milli təhlükəsizliyinin təmin edilməsinə o cümlədən də sahibkarlıq mühitinin inkişafı və yaxşılaşdırılması istiqamətində öz töhfəsini verir. Hazırki dövrdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən digər sahələrdə olduğu kimi, eyni zamanda gömrük işinin təşkili üzrə də həyata keçirilən islahatlar Azərbaycanın beynəlxalq ticarətdəki rolunu artırmaqla yanaşı eləcə də qeyri-neft sahəsinin inkişafı, yəni sahibkarlıq və investisiya mühitinin inkişafının stimullaşdırılması, idxal-ixrac üzrə əməliyyatların daha da sürətlə həmçinin də şəffaf və ədalətli formada reallaşdırılması o cümlədən tranzit fəaliyyəti üzrə potensialının gücləndirilməsində əsaslı rola malik olub və olmaqda da davam edir.

Azərbaycan bu gün də eyni zamanda tarixən də müxtəlif mədəniyyət o cümlədən sivilizasiyaların kəsişdiyi bir ərazidə yerləşmişdir. Tarixi yol olan İpək Yolunun Azərbaycan Respublikası ərazisindən keçməsi beynəlxalq ticarəti ilə intensiv şəkildə əlaqə yaradılmasında mühüm rol oynayıb və bununla yanaşı Azərbaycanda müasir tələblərə cavab verən gömrük işinin yaradılması istiqamətində vacib addımlar atılıb. Hal-hazırda ölkəmiz yüksək Avropa standartlarına uyğun olan maddi-texniki həmçinin də normativ-hüquqi bazaya, eyni zamanda olduqca müasir infrastruktura və informasiya-kommunikasiya texnologiyalarına malikdir. Bütün bu amillər isə öz növbəsində Azərbaycan gömrüyünün beynəlxalq səviyyədə əlaqələrinin daim genişlənməsində əsaslı rola malikdir. Azərbaycan Respublikasında gömrük strategiyası aşağıda qeyd edilənlərin həyata keçirilməsinə yönəldilmişdir.

1. Region üzrə qanuni ticarətin inkişaf etdirilməsi üçün əlverişli şərait yaradılması,
2. Ümumdünya ticarət-təchizat zəncirinin təhlükəsizliyinin təmin olunması,

3. Xarici iqtisadi fəaliyyəti stimullaşdırmaqla ölkədə ticarət-investisiya mühitinin daha da cəlbedici olmasına.

Dövlət idarəçiliyinin təkmilləşdirilməsi və inkişafı məqsədilə Prezident tərəfindən həyata keçirilən islahatlar gömrük işinin təşkilinin müasir standartlara cavab verən strukturda qurulmasına, eləcə də gömrük xidmətinin davamlı və dinamik formada inkişafına həmçinin də Azərbaycan gömrüyünün beynəlxalq sferada etibarlı yer tutmasına şərait yaradıb. Gömrük xidməti dedikdə gömrük qanunvericiliyinə əməl olunmasına və gömrük ödənişlərinin alınmasına nəzarəti həyata keçirən dövlət xidmətinin bir növü nəzərdə tutulur. Prezident İlham Əliyev tərəfindən gömrük orqanları qarşısında bir sıra tapşırıqlar qoyulmuşdur. Onun qoyduğu bu tapşırıqlar isə öz növbəsində aşağıdakılardan ibarətdir:

1. şəffaflığın tam təmin olunması,
2. korrupsiya və rüşvət hallarının aradan qaldırılması
3. sahibkarlıq mühitinin daha da yaxşılaşdırılması,
4. vətəndaş məmnunluğunun təmin olunması,
5. beynəlxalq ticarətin isə daha sadə və asan formada reallaşdırılması üçün bütün tədbirlərin həyata keçirilməsindən.

Ümumiyyətlə Azərbaycanda sahibkarlıq fəaliyyətinin inkişafı və sahibkarlıq subyektləri üçün gömrük sferasında daha əlverişli şəraitin yaradılması məqsədi ilə görülən tədbirlər və atılan addımlar qismində bunları qeyd etmək olar.

1. gömrük qanunvericiliyi təkmilləşdirilir,
2. gömrük prosedurlarının asanlaşdırılması
3. vaxt itkisinin aradan qaldırılması.

Ölkədə fiskal siyasətin inkişaf etdirilməsi, gömrük nəzarəti sisteminin həmçinin sərhədkeçmə prosedurlarının sadələşdirilməsi eyni zamanda sürətləndirilməsi, o cümlədən idxal-ixrac əməliyyatlarının həyata keçirilməsi zamanı tələb edilən sənədlərin minimum səviyyəyə endirilməsi və ən əsası da, şəffaflığın təmin edilməsi, elektron xidmətlərin sayının artırılması üzrə islahatlar hələ də davam etdirilirvə burada əsas məqsəd xarici ticarət əməliyyatlarını sürətləndirməklə malların və nəqliyyat vasitələrinin minimum vaxt itkisi ilə maneəsiz formada təyinat nöqtəsinə çatdırılması, eyni zamanda biznes subyektləri üçün əlverişli və münbit şəraitin yaradılmasıdır.

Hazırkı dövr üçün onu qeyd edə bilərik ki, Azərbaycan Gömrük Xidməti öz idarəetmə prinsipini tam formada kağızsız texnologiya üzrə qurmaqla elektron şəkildə bəyanetmə sistemini 100 faizə çatdırmaqla yanaşı həmçinin də dünyanın qabaqcıl ölkələri hesab olunan ölkələr sırasına daxil edilib. 2023-ci ildə Dövlət Gömrük Komitəsinə 47422 sənəd və Dövlət Gömrük Komitəsinin Aparatına və Komitənin strukturuna daxil olan gömrük orqanları və tabeliyində olan digər qurumlara vətəndaşlardan 36332 ərizə, 356 şikayət və 3 təklif ümumilikdə 39691 müraciət daxil olmuşdur və gömrük xidməti göstərilib.

Hazırda gömrük sistemində bütün ödənişlər 100 faiz elektron qaydada aparılır. 2021-ci ildə elektron ticarətdən 1 205 507,9, 2022-ci ildə isə 1 419 969,1 manat yığıldığı halda, 2023-cü ildə elektron ticarətdən 1 625 125,3 manatdan çox gömrük rüsumu yığılıb. Elektron idarəetmə sisteminin inkişaf etdirilməsi nəticəsində artıq elektron bəyannamə sistemi üzrə 100 faiz tətbiq olunur ki, bu da idxal və ixrac əməliyyatlarının həm sürətli həm də asan şəkildə yerinə yetirilməsinə, məmur və vətəndaş təmasının isə maksimum səviyyədə minimuma endirilməsinə şərait yaradıb.

Azərbaycan Respublikasında gömrük üzrə informasiya texnologiyaları sahəsində də kifayət qədər uğurlara imza atmış və son zamanlarda bu sferada olduqca yeniliklər tətbiq olunub. Ümumdünya Gömrük Təşkilatının İKT sahəsində ən böyük tədbiri olan İnformasiya Texnologiyaları Konfransı və Sərgisi 2019-cu il 12-14 iyun tarixlərində Azərbaycanda keçirilmişdir.

Hal-hazırda bütün gömrük-sərhəd keçid məntəqələrində gömrük nəzarəti ən müasir avadanlıqlarla həyata keçirilməklə yanaşı sərhəd-keçid məntəqələrinin buraxılış qabiliyyətini artırmaq məqsədilə yeni layihələr gerçəkləşdirilir. Bu baxımdan malların və nəqliyyat vasitələrinin gömrük sərhədindən keçirilməsi üçün "Yaşıl Dəhliz" buraxılış sisteminin tətbiqi xüsusi önəm daşıyır.

"Yaşıl dəhliz" buraxılış sistemi dedikdə əvvəlcədən elektron formada təqdim olunmuş qısa idxal bəyannaməsi əsasında aparılmış gömrük nəzarətinə və risk qiymətləndirilməsinin nəticələrinə uyğun olaraq, gömrük sərhəd buraxılış məntəqələrində gömrük qanunvericiliyi ilə müəyyən edilmiş məlumatlandırma və qeydiyyat əməliyyatlarının yerinə yetirilməsi vasitəsilə malların və nəqliyyat

vasitələrinin fiziki yoxlanması aparılmadan gömrük proseduruna uyğun gömrük ərazisinə buraxılışını nəzərdə tutan buraxılış sistemi başa düşülür.

"Yaşıl dəhliz" buraxılış sistemindən istifadə edilməsi üçün mallar və nəqliyyat vasitələri gömrük ərazisinə gətirilməzdən əvvəl gömrük orqanlarına elektron formada qısa idxal bəyannaməsi göndərilir. Qısa idxal bəyannaməsi malları gömrük ərazisinə gətirən və ya onların daşınmasına cavabdeh olan şəxslər, həmin şəxslərin nümayəndələri, idxalatçı, malın alıcısı, yaxud malları gömrük rəsmiləşdirilməsi üçün gömrük orqanına təqdim edən şəxs tərəfindən göndərilə bilər. Qısa idxal bəyannaməsi daxil olduqdan sonra elektron sistemdə avtomatik olaraq qeydiyyata alınır və qeydiyyatın nəticəsi barədə idxalatçıya real vaxt rejimində elektron bildiriş göndərilir.

"Yaşıl dəhliz" buraxılış sistemindən istifadə edilməsi üçün aşağıdakılara riayət olunmalıdır:

1. mallar və nəqliyyat vasitələri gömrük ərazisinə gətirilməzdən əvvəl bu Qaydaların 2.2-ci bəndində müəyyən olunmuş müddətdə gömrük orqanlarına elektron formada qısa idxal bəyannaməsi verilməlidir;
2. qısa idxal bəyannaməsində gömrük qanunvericiliyi ilə tələb olunan məlumatlar əks etdirilməlidir;
3. nəqliyyat vasitəsinin texniki konstruksiyası onun texniki sənədləri ilə müəyyən edilmiş normalar həddində olmalıdır;
4. mallar və nəqliyyat vasitələri üzərində vizual müayinə aparılması üçün gömrük orqanının əməkdaşlarına şərait yaradılmalıdır;
5. idxalatçının informasiya mübadiləsini həyata keçirməsi və həmin informasiyanın mühafizəsini təmin etməsi üçün müvafiq imkanları olmalıdır.

"Yaşıl Dəhliz" buraxılış sisteminin məqsədləri aşağıdakılardır:

1. qanunvericiliyə riayət edən xarici ticarət iştirakçıları üçün daha əlverişli şərait yaratmaq,
2. biznesin dövlət tənzimləmə mexanizmlərinin effektivliyini artırmaq,
3. könüllü riayət mədəniyyətini formalaşdırmaq,
4. risk qiymətləndirilməsi
5. gömrük auditi əsasında gömrük nəzarətini və rəsmiləşdirilməsini daha çevik və şəffaf həyata keçirməklə fiziki gömrük yoxlamalarını minimuma endirmək,
6. ölkənin ixrac potensialını gücləndirmək,
7. məmur-sahibkar münasibətlərini müasir idarəçilik prinsiplərinə uyğun olaraq inkişaf etdirmək
8. mövcud resurslardan daha optimal istifadəni təmin etməkdir.

"Yaşıl Dəhliz" buraxılış sisteminin imkanlarından yararlanan şəxslər idxal etdikləri mal və nəqliyyat vasitələrini anbarlarına apara bilərlər. Bu isə vaxt itkisinin, əlavə xərclərin, məmur-vətəndaş təmasının aradan qaldırılmasına, ticarətin asan və sürətli şəkildə həyata keçirilməsinə şərait yaradır.

Ümumiyyətlə, ölkə iqtisadiyyatının inkişafında və büdcənin gəlirlər hissəsinin formalaşmasında xüsusi rola malik Dövlət Gömrük Komitəsi hazırda üç istiqamətdə beynəlxalq standartlara uyğun islahatlar aparır.

1. Gömrük-Biznes
2. Gömrük-Hökumət
3. Gömrük-Gömrük

Bu üç istiqamətində görülən tədbirlər məhz qarşılıqlı səmərəli fəaliyyətin təşkilinə xidmət edir. Bu gün gömrük orqanlarının fəaliyyəti digər aidiyyəti dövlət strukturları ilə sinxronlaşdırılıb və bu da bütün gömrük hüqupozmalarının qarşısının operativ şəkildə alınmasını təmin edir. Azərbaycan Gömrük Xidməti digər ölkələrin gömrük orqanları ilə mallar və nəqliyyat vasitələri haqqında ilkin məlumat mübadiləsinin təşkilini həyata keçirir ki, bu da gömrük vergi və rüsumlarından yayınmalara yönələn cəhdləri imkansız edir.

Dövlət Gömrük Komitəsi hüquq-mühafizə orqanı olaraq 2023-cü il ərzində Azərbaycan Respublikasının gömrük orqanları tərəfindən hüquq mühafizə fəaliyyətinin gücləndirilməsi istiqamətində həyata keçirilmiş bir sıra kompleks tədbirlər nəticəsində 34 113 hüquqpozma faktı aşkar edilmiş, 2022-ci il ilə (28 475 fakt) müqayisədə 19,8% artım qeydə alınmışdır. Bu faktlardan 1681-i cinayət xarakterli (2022-ci il ilə (694 fakt) müqayisədə 2,4 dəfə çox) faktlar olmuşdur. 189 fakt üzrə qaçaqmalçılıq cinayət əməli ilə bağlı tutulmuş qaçaqmalçılıq əşyalarının dəyəri 9 milyon 848 min manat; 130 fakt üzrə aksiz markası ilə markalanmalı olan məhsulları belə marka olmadan satma, satış məqsədilə saxlama və ya idxal etmə cinayət əməli ilə bağlı aşkar edilmiş aksiz markası ilə

markalanmalı olan məhsulların dəyəri 489 min 440 manat; 1224 fakt üzrə xarici valyuta vəsaitlərini xaricdən cinayət əməli ilə bağlı qaytarılmayan xarici valyuta vəsaitlərinin dəyəri 579 645 020,89 ABŞ dolları və 129431,32 Avro; 131 fakt üzrə digər cinayət xarakterli faktlar üzrə aşkar edilmiş hüquqpozma predmetlərinin dəyəri 119 298,62 manat təşkil etmiş, həmçinin gömrük ödənişlərinin ödənilməsindən yayınma Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin 2023-cü ilin yekunlarına dair Hesabatı 16 cinayət əməli ilə bağlı müəyyən edilmiş 33 fakt üzrə 1698 barəsində müvafiq tədbirlər görülmüşdür.

Gömrük orqanları tərəfindən 32432 gömrük qaydaları əleyhinə inzibati xəta faktları (2022-ci il ilə müqayisədə (27781 fakt) 16,74 % artım) üzrə 2681 hüquqi şəxs və 29750 fiziki şəxs inzibati məsuliyyətə cəlb edilmişdir.

Aparılan islahatlar nəticəsində artıq Azərbaycanın gömrük sistemində beynəlxalq təcrübədə özünü doğruldan ən müasir model tətbiq edilir. Bununla da əməkdaşların fəaliyyətinin səmərəliliyi artırılır, sahibkar-məmur təması minimuma endirilir, xidmət səviyyəsi və vətəndaş məmnuniyyəti yüksəlir, idxal-ixrac əməliyyatları sürətli və şəffaf şəkildə həyata keçirilir.

**Ədəbiyyat**

1. “Malların və nəqliyyat vasitələrinin gömrük sərhədindən keçirilməsi üçün “Yaşıl dəhliz” və digər buraxılış sistemlərindən istifadə Qaydaları”nın təsdiq edilməsi haqqında 920 nömrəli Fərman
2. Azərbaycan Respublikası dövlət sərhədinin buraxılış məntəqələrindən keçirilən malların və nəqliyyat vasitələrinin yoxlanılmasında "bir pəncərə" prinsipinin tətbiqi haqqında AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI
3. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 21 dekabr tarixli 427 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Xarici ticarət iştirakçılarının “Yaşıl dəhliz” buraxılış sistemindən daimi istifadə hüququnu əldə etməsi, həmin hüququn dayandırılması, ləğvi və bərpası Qaydası”nda dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı
4. Azərbaycan Respublikasının Gömrük Məcəlləsi
5. Dövlət Gömrük Komitəsinin İllik Yekun Hesabatı

# AZƏRBAYCAN IQTISADIYYATININ STRUKTURUNDA XARICI TICARƏTIN PRIORITETLIYI VƏ ONUN TƏNZIMLƏNMƏSI ZƏRURƏTI

**MEHRIBAN YADULLA**
i,ü,f.d.,dosent Bakı Dövlət Universiteti
Beynəlxalq Münasibətlər və İqtisadiyyat Fakultəsi

**İNCI KAZIMOVA**
Magistrant,Bakı Dövlət Universiteti
Beynəlxalq Münasibətlər və İqtisadiyyat Fakultəsi
*incikazimova10@gmail.com*
BAKI,AZƏRBAYCAN

**XÜLASƏ**

Beynəlxalq sferada yaşanan qloballaşma xarici ticarətin əhəmiyyətini artırmışdır.Müasir dövrdə bütün ölkələrin,o cümlədən də Azərbaycanın dünya iqtisadiyyatında yeri ölkənin iqtisadi potensialı, təbii resurslarının həcmi və onlardan istifadə imkanları ilə müəyyən olunur.Ölkənin dünya ölkələri arasında üstün mövqeyə malik olması üçün xarici ticarət əlaqələrinin əhəmiyyəti danılmazdır.Bu qədər

böyük önəm danışması səbəbindən xarici ticarət-iqtisadi münasibətlərinin təşkilinə və onun tənzimlənməsinə dövlət tərəfindən nəzarət olunur.Bu sahədə əsas fəaliyyət Azərbaycanın gömrük xidməti tərəfindən həyata keçirilir. Müasir dövrdə iqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsi məsələsi hər bir ölkədə mövcuddur.Tənzimləmə tədbirləri bir-birindən fərqlənsədə,nəticə etibarı ilə dövlətin iqtisadiyyata təsir mexanizmini əks etdirir.Dövlətin qarşısında duran ən vacib məsələlərdən biri də tənzimləmənin optimal həcminin müəyyən edilməsidir.Xarici ticarətin səmərəli təşkil olunması və iqtisadi təhlükəsizliyin təmin olunması baxımından xarici ticarət fəaliyyətinin dövlət tərəfindən tənzimlənməsi zərurəti ortaya çıxır.İqtisadi təhlükəsizlik milli iqtisadiyyatın dinamik inkişafı,onun cəmiyyətin və fərdlərin tələbatlarını ödəyə bilməsi baxımından uğyun olan daxili və xarici şəraitlərin məcmusudur.Xarici ticarətin tənzimlənməsi mexanizmlərini başa düşmək və dövlət tərəfindən bu prosesin necə həyata keçirildiyini anlamaq üçün əvvəlcə xarici ticarət fəaliyyətinin mahiyyətini və təyinatını başa düşmək lazımdır.Məqalədə xarici ticarətin əhəmiyyəti,bu fəaliyyətinin tənzimləməsi prosesinin həyata keçirilməsi metodları, onların tətbiqi xüsusiyyətləri və iqtisadiyyata təsir istiqamətləri, mexanizmlərin təkmilləşdirilməsi və Azərbaycanın xarici ticarətinin müasir vəziyyəti haqqında məsələlər araşdırılmışdır.

**Açar sözlər**: xarici ticarət,gömrük-tarif tənzimlənməsi, qeyri-tarif tənzimlənməsi, xarici ticarətin stimullaşdırılması

**SUMMARY**

Globalization in the international sphere has increased the importance of foreign trade. In the modern era, the place of all countries, including Azerbaijan, in the world economy is determined by the economic potential of the country, the size of its natural resources and the possibilities of using them. The importance of foreign trade relations is undeniable for the country to have a superior position among the countries of the world. Due to such great importance, the organization of foreign trade and economic relations and its regulation is controlled by the state. The main activity in this field is carried out by the customs service of Azerbaijan. In modern times, the issue of regulation of the economy by the state exists in every country. Although the regulatory measures differ from each other, they ultimately reflect the mechanism of the state's influence on the economy. One of the most important issues facing the state is determining the optimal scope of regulation. In terms of the effective organization of foreign trade and the provision of economic security, there is a need to regulate foreign trade activities by the state. Economic security is a set of internal and external conditions that are compatible in terms of the dynamic development of the national economy, its ability to meet the needs of society and individuals. Understanding the mechanisms of foreign trade regulation and in order to understand how this process is carried out by the state, it is necessary to first understand the nature and purpose of foreign trade activity. The article describes the importance of foreign trade, the methods of implementing the process of regulating this activity, the features of their application and the directions of impact on the economy, the improvement of mechanisms and the modern state of Azerbaijan's foreign trade. issues have been investigated.

**Keywords:** foreign trade, customs-tariff regulation, non-tariff regulation, stimulation of foreign trade

#### GIRIŞ

Beynəlxalq ticarət dedikdə,bütün dünya ölkələrinin xarici ticarətini özündə birləşdirən əmtəə-pul münasibətləri sferası başa düşülür. Başqa sözlə, beynəlxalq ticarət ayrı-ayrı ölkələrin satıcıları və alıcıları arasında müxtəlif məhsulların mübadiləsi sistemidir.Xarici ticarət isə milli təsərrüfatlar arasında əmtəə və xidmətlərlə mübadilədir.Beynəlxalq ticarət prosesində əmtəə axınlarının 3 istiqaməti yaranır.Bu istiqamətlərə ölkəyə malların gətirilməsi kimi başa düşülən idxal əməliyyatları, ölkədən malların aparılması kimi başa düşülən ixrac və bir ölkədən keçməklə digər ölkəyə malların daşınması kimi başa düşülən tranzit əməliyyatları aid edilir.Tranzit əməliyyatları hər hansı bir ölkə iqtisadiyyatı üçün gəlir baxımından çox əhəmiyyət kəsb etməsə də, beynəlxalq ticarətin təşkilində rolu danılmazdır.Bir çox ölkə ,o cümlədən də Azərbaycan üçün ölkəyə idxal olunan mallara tətbiq edilən vergilər və digər ödənişlər fiskal funksiyanı həyata keçirir və büdcənin doldurulmasına xidmət edir.Ticarət münasibətlərinin idarə olunması və səmərəli təşkili üçün dövlət tərəfindən xarici ticarətin tənzimlənməsi ilə bağlı tədbirlər həyata keçirilir.Buraya gömrük-tarif tənzimlənməsi mexanizmləri və qeyri-tarif tədbirləri aiddir.İlk hissədə qeyd edilən tənzimlənmə tədbirləri ilə bağlı , sonrakı bölmədə

Azərbaycanda xarici ticarətin dinamikası,sonda isə tədqiqatdan əldə olunan nəticələr ilə əlaqədar məqamlar əks etdirilmişdir.

**Xarici ticarət və onun tənzimlənməsi**

Xarici ticarət əməliyyatları müxtəlif ölkələrdə istehsal olunan məhsulların tələbatların ödənilməsi məqsədilə mübadiləsi prosesidir.Təcrübələrə əsasən demək olar ki, ticarət o zaman faydalı və səmərəli olur ki,tərəflərin mübadilə etdiyi mallar həmin ticarət subyekti tərəfindən ən az vaxtda və ən az xərclə istehsal edilmiş olsun.Yəni,vaxta və resurslara qənaət edərək məhsul istehsal etmək və onu əmtəə kimi bazara çıxarmaq üçün uyğun bilik və bacarıqların olması şərtdir.Yalnız məhsuldarlığın, faydalılığın, səmərəliliyin üzərində qurulmuş istehsal prosesinin nəticəsində əldə edilən məhsulların mübadiləsini tam faydalı ticarət hesab etmək olar.Ticarət münasibətlərinin əsas məqsədi tələbatların ödənilməsi və qazanc əldə edilməsi olduğu üçün ticarət subyektləri bu məsələyə ciddi yanaşmalıdır.Açıq iqtisadiyyata sahib olan və digər ölkələrlə ticarət münasibətləri quran hər bir ölkə üçün xarici ticarətin stimullaşdırılması və idxaldan asılılığın azaldılması mühüm əhəmiyyət kəsb edir.Xarici ticarətin ölkə iqtisadiyyatı üçün əhəmiyyəti çox böyük olsa da, xarici ticarət xarici iqtisadi fəaliyyətdən fərqli anlayışdır.Bu iki anlayış bir-birinə yaxın və oxşar kimi görünsədə xarici iqtisadi fəaliyyəti xarici ticarətdən fərqləndirmək lazımdır. Xarici iqtisadi fəaliyyət-dövlətin iqtisadi inkişafı üçün faydalı olan işlər görülməsinə istiqamətlənən və müxtəlif sahələr üzrə həyata keçirilən fəaliyyət növüdür.Xarici ticarət isə-bir ölkənin digər ölkələrlə mal və nəqliyyat vasitələrinin idxalı və ixracı, həmçinin də tranzit əməliyyatlarının aparılmasından ibarət olan fəaliyyətdir.Xarici ticarətin milli iqtisadiyyat üçün əhəmiyyəti aşağıdakılardan ibarətdir:

1. İstehsal və resurs çatışmazlığının aradan qaldırılması.
2. Daxili tələbdən daha artıq istehsala nail olunması.
3. Rəqabət.
4. Daxili bazar tələbinin inkişafı.
5. Gəlir əldə edilməsi.
6. İqtisadi dinamizm.

Azərbaycanın ticarətində idxala tətbiq olunan vergi və rüsumları da nəzərə alaraq qeyd etmək lazımdır ki,ölkəmiz proteksionist siyasət yürüdən ölkələrdən biridir.Azərbaycanda ixracın stimullaşdırılması məqsədilə ixrac əməliyyatlarına heç bir vasitə ilə məhdudlaşdırıcı təsirlər göstərilmir.Əksinə ixracın genişləndirilməsi üçün əlavə imkanlar yaradılır.Bütün bunları nəzərə alsaq, xarici ticarətin tənzimlənməsi dövlətin iqtisadi inkişaf səviyyəsindən asılıdır.Xarici ticarətin tənzimlənməsində dövlətin istifadə etdiyi metodlar iqtisadi və ya dolayı metodlar,inzibati və ya birbaşa metodlar,qeyri-tarif metodları və tarif metodları olmaqla 4 yerə bölünür.

İqtisadi metodlar dedikdə xarici ticarətin dövlət tənzimlənməsinin vergi yığımları, gömrük rüsumları və gömrük yığımları kimi alətləri nəzərdə tutulur.İnzibati metodlar xarici iqtisadi fəaliyyət subyektlərinə dövlətin müxtəlif qaydalar, qanunlar, qadağalar və normativlərlə təsirini xarakterizə edir.Bu metodlar iqtisadiyyata birbaşa təsir edir və buna görə birbaşa metodlarda adlandırılır.Xarici ticarətin gömrük-tarif tənzimlənməsi fəaliyyəti gömrük tarifləri,gömrük rüsumu və gömrük ödənişləri vasitəsilə həyata keçirilir.Gömrük-tarif tənzimlənməsinin əsas elementi tarif anlayışıdır.Gömrük tarifi – gömrük sərhədindən keçirilən mallara tətbiq edilən və xarici iqtisadi fəaliyyətin mal nomenklaturasına uyğun olaraq sistemləşdirilmiş gömrük rüsumu dərəcələrinin məcmusudur[1]. Gömrük tariflərinin tətbiqinin iqtisadiyyata təsirləri aşağıdakılardır:

1. İstehsal təsiri-idxal edilən mallara tətbiq olunan gömrük tariflərinin həmin malların daxili bazar qiymətini qaldırması idxal olunan mallarla eyni malları istehsal edən sahələrin xarici rəqabətdən müdafiəsini təmin edir və bununlada istehsalın artımına təsir göstərir.
2. İstehlak təsiri-gömrük tariflərinin tətbiqi istehsalı artırsa da,idxal mallarının qiymətləri yüksəldiyi üçün istehlakçıların həmin mallara olan tələbi aşağı düşür.Bu isə daxildə istehsal olunan mallar üçün yeni satış imkanları yaradır.
3. Xarici ticarətə təsiri-bu təsir istehlak və istehsal təsirindən ortaya çıxır.İstehsalın artması və istehlakın azalması idxal-ixrac həcminə təsir edir.İdxalın həcmi azalır və belə olan halda ölkənin idxaldan aslılığının aradan qaldırılması üçün şərait yaranmış olur.
4. Yenidən bölgü təsiri-gömrük tarifləri milli gəlirin istehlakçılardan istehsalçılara doğru yenidən bölgüsünü təmin edir.Yəni,gəlirin bir iqtisadi fəaliyyət subyektindən digərinə axını baş verir və ümumilikdə iqtisadiyyatda itkilər baş vermir.

5. Büdcə gəlirlərinə təsiri-gömrük tarifləri dövlət büdcəsinə vəsait daxil olmasını təmin edir.

Qeyri-tarif tənzimlənməsi metodları daha əhatəli olması ilə tarif metodlarından fərqlənir.Qeyri-tarif tənzimlənməsinin əsas alətləri qeyri-tarif mədudiyyətləridir.Qeyri-tarif məhdudiyyətləri tənzimləmə gücünə sahib olan və öz xarakteri ilə tarif tənzimlənməsi metodu hesab edilə bilməyən inzibati tənzimləmə alətlərinin məcmusudur[6]. Bəzi iqtisadi ədəbiyyatlarda 50-dən çox qeyri-tarif məhdudiyyəti növünün olduğu qeyd edilir.Lakin təbii ki,bunların hamısından müasir dövrdə istifadə edilmir.Ümumiyyətlə, xarici ticarətin tənzimlənməsində kəmiyyət məhdudiyyətləri,kvotalaşdırma,lisenziyalaşdırma,iqtisadi sanksiyalar,dempinq və antideminq,"könüllü" ixrac məhdudlaşdırılmaları,ixrac subsidiyaları,ticarət embarqoları kimi qeyri-tarif metodlarından daha çox istifadə edilir.

Mövcud dünya təcrübəsi göstərir ki,xaric iqtisadi fəaliyyətin tənzimlənməsində qeyri-tarif məhdudiyyətlərindən istifadənin üstün cəhətləri ondan ibarətdir ki,qeyri-tarif məhdudiyyətləri beynəlxalq razılaşma ilə əlaqələnmir və onların milli qanunverciliyə rahat uyğunlaşması təmin oluna bilir.Eyni zamanda qeyri-tarif məhdudiyyətləri çevik olduğu üçün dəyişən iqtisadi proseslərə tez uyğunlaşa bilir.Onlar sürətli yenilənməyə tez uyğunlaşır,həm dolayı, həm də birbaşa təsir imkanlarına malik olurlar.

**Azərbaycanda xarici ticarətin müasir vəziyyəti**

Xarici ticarət münasibətlərinin iqtisadiyyatın inkişafına təsirlərini öyrənərkən, ilk növbədə Azərbaycanın xarici ticarətinin vəziyyəti,idxalda və ixracda əsas tərəfdaşları və onların payı,o cümlədən də ticarətin əmtəə strukturu kimi əsas göstəricilər təhlil olunmalıdır.Xarici ticarətin milli iqtisadi inkişafın təmin olunması üçün əhəmiyyəti aşağıdakılardan ibarətdir:

- ölkənin beynəlxalq ixtisaslaşma səviyyəsi artır və dünya iqtisadiyyatındakı yeri möhkəmlənir
- kütləvi istehsalın təşkili yeniliklərdən istifadənin səmərəliliyini artırır
- ixracın artması hesabına yeni iş yerləri yaradılır və məşğulluq səviyyəsi artır
- ticarətin inkişafı təbii resursların və əməyin səmərəliliyinin artımını təmin edir və nəticədə iqtisadi artım və gəlir artımı müşahidə olunur.

***Cədvəl 1.****Azərbaycanda Respublikasında 2013-2023-cü illərdə xarici ticarət dövriyyəsinin dinamikası*

| İllər | Milyon ABŞ dolları ilə | | | |
|---|---|---|---|---|
| | Ticarət dövriyyəsi | İdxal | İxrac | Ticarət saldosu |
| 2013 | 34 687,90 | 10 712,50 | 23 975,40 | 13 262,90 |
| 2014 | 31 016,30 | 9 187,70 | 21 828,60 | 12 640,90 |
| 2015 | 21 945,80 | 9 216,70 | 12 729,10 | 3 512,40 |
| 2016 | 21 946,70 | 8 489,10 | 13 457,60 | 4 968,50 |
| 2017 | 24 103,30 | 8 783,30 | 15 320,00 | 6 536,70 |
| 2018 | 30 955,00 | 11 465,90 | 19 489,10 | 8 023,20 |
| 2019 | 33 302,70 | 13 667,50 | 19 635,20 | 5 967,70 |
| 2020 | 24 464,60 | 10 732,00 | 13 732,60 | 3 000,60 |
| 2021 | 33 912,50 | 11 705,80 | 22 206,70 | 10 500,90 |
| 2022 | 52 686.49 | 14 539.86 | 38 146.63 | 23 606.77 |
| 2023 | 51 183,89 | 17 285,34 | 33 898,55 | 16 613,21 |

***Mənbə:****Cədvəl Dövlət Statistika Komitəsi və Dövlət Gömrük Komitəsinin statistik məlumatları əsasında tərtib edilmişdir.*

Cədvəl 1-də Azərbaycanda 2013-2023-cü illərdə xarici ticarət dövriyyəsinin dinamikası əks etdirilmişdir.Cədvəl məlumatlarına əsasən demək olar ki,2013-2023-cü illər ərzində Azərbaycanın ticarətində müsbət saldo müşahidə olunmuşdur.Yəni,ixrac həcmi idxal həcmindən çox olmuşdur.Bu müsbət hal kimi qiymətləndirilə bilər.Çünki, hər hansı bir ölkənin ticarətində ixracın üstün mövqedə olması idxaldan asılılığın az olması deməkdir.Tədqiq olunan dövr ərzində ən yüksək ticarət dövriyyəsi həcmi 2022-ci ildə, ən aşağı ticarət dövriyyəsi həcmi isə 2015-ci ildə müşahidə olunmuşdur. 2022-ci ildə Azərbaycan Respublikasının hüquqi və fiziki şəxsləri dünyanın 193 ölkəsindəki tərəfdaşları ilə

ticarət əməliyyatları həyata keçirmişdir.2023-cü ildə xarici ticarət dövriyyəsi 51 183,89 milyon ABŞ dolları, o cümlədən ixracın dəyəri 33 898,55 milyon dollar, idxalın dəyəri 17 285,34 milyon dollar təşkil etmiş, nəticədə 16 613,21 milyon dollarlıq müsbət ticarət saldosu yaranmışdır. Ticarət əməliyyatlarının 66,23%-i ixracın, 33,77%-i isə idxalın payına düşmüşdür.Xarici ticarət iştirakçılarının sayı isə 71 767 nəfər olmuşdur.Bu 2022-ci il ilə müqayisədə 13 856 nəfər çoxdur.

***Diaqram 1.****2023-cü ildə ixracda əsas ölkələr (faizlə)*




***Mənbə:****Dövlət Gömrük Komitəsinin statistik məlumatları əsasında tərtib edilmişdir.*

Diaqram 1-dən də göründüyü kimi, 2023-cü ildə Azərbaycanın ixracında ən çox paya malik olan 10 ölkə İtaliya,Türkiyə, İsrail, Hindistan, Yunanıstan, İspaniya,Rusiya,Gürcüstan,Çexiya,Almaniya olmuşdur.İxracın 7,39 %-i isə digər ölkələrin payına düşür.İxracda 44,86%-lik paya sahib olan İtaliya birinci,15,81%-lə Türkiyə ikinci, 4,13%-lə isə İsrail üçüncü yer tutur.

***Diaqram 2.****2023-cü ildə idxalda əsas ölkələr (faizlə)*




***Mənbə:****Dövlət Gömrük Komitəsinin statistik məlumatları əsasında tərtib edilmişdir.*

Diaqram 2-dən də göründüyü kimi,2023-cü ildə isə Azərbaycanın idxalında ən çox paya malik olan 10 ölkə Rusiya, Türkiyə, Çin, Almaniya, Türkmənistan, Koreya,ABŞ,İran,İtaliya və Yaponiya

olmuşdur.Onlar içərisində idxalda 18,29%-lik paya sahib olan Rusiya birinci,Çin 17.49 %-lə ikinci,Türkiyə isə 13.26 %-lə üçüncü yer tutur.

**Xarici ticarətin stimullaşdırılması**

Dünya təcrübəsi göstərir ki,xarici iqtisadi fəaliyyətin 80%-dən çoxunu xarici ticarət əməliyyatları təşkil edir.Xarici ticarətin inkişafı üçün ilk növbədə ticarətimizdə olan çatışmazlıqların aşkarlanmasına ehtiyac vardır.Qeyd edilən çatışmazlıqların aradan qaldırılması və ixracın təşviqi üçün işlər görülsə də,onların nəticələrinin iqtisadiyyatda tam əks oluna bilməsi üçün müəyyən vaxt tələb olunur.Atılan addımlara misal kimi,xarici ticarət iştirakçılarının fəaliyyətlərinin səmərəliliyinin artırılması üçün güzəştli sistemlərin tətbiqini göstərmək olar.Azərbaycanda xarici ticarət iştirakçıları üçün əlverişli şəraitin yaradılması və ölkənin ixrac potensialının gücləndirilməsi məqsədilə 21 dekabr 2018-ci ildə "Xarici ticarət iştirakçılarının "Yaşıl dəhliz" buraxılış sistemindən daimi istifadə hüququnu əldə etməsi, həmin hüququn dayandırılması, ləğvi və bərpası Qaydası"nın təsdiq edilməsi haqqında AR Prezidentinin 427 saylı fərmanı imzalanmışdır.Fərmanda "yaşıl dəhliz" buraxılış sistemindən daimi istifadə hüququnun əldə edilməsi, "yaşıl dəhliz" buraxılış sisteminin daimi istifadəçilərinə verilən üstünlüklər, "yaşıl dəhliz" buraxılış sisteminin daimi istifadəçisinin üstünlüklərdən istifadəsinə dair tələblər, "yaşıl dəhliz" buraxılış sistemindən daimi istifadə hüququnun dayandırılması, ləğvi və bərpası haqqında müddəalar yer alır[4].

Ticarətin genişləndirilməsi məqsədilə istifadə edilən üsullardan biri də xarici ticarət iştirakçılarına səlahiyyətli iqtisadi operator statusunun verilməsidir. ÜGT-nin standartlarına görə, SİO malların çatdırılmasının təhlükəsizliyinin təmin olunması və xarici ticarətin asanlaşdırılması məqsədi ilə gömrük ÜGT-nin standartlarına görə, SİO malların çatdırılmasının təhlükəsizliyinin təmin olunması və xarici ticarətin asanlaşdırılması məqsədi ilə gömrük nəzarətinin sadələşdirilmiş formalarından istifadə edən hüquqi şəxsdir[5].

Azərbaycanda ixracın təşviqi sahəsində fəaliyyətlərlə məşğul olması məqsədilə 2003-cü ildə İqtisadiyyat Nazirliyi tərəfindən İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO) təsis edilmişdir.AZPROMO-nun əsas məqsədi qeyri-neft sektoruna xarici investisiyaların cəlb edilməsi və qeyri-neft məhsullarının ixracının stimullaşdırılmasıdır. Bu qurum eyni zamanda yerli və xarici biznes dairələri arasında əməkdaşlığın genişləndirilməsi və Azərbaycanda və xaricdə genişmiqyaslı tədbirlərin təşkil edilməsində birbaşa iştirak edir[10].

Dünya praktikasında ixracın genişləndirilməsində çox böyük təsiri olan mexanizmlərdən biri ixrac krediti mexanizmidir.İxrac krediti ixracla məşğul olan istehsalçılara verilən bir kredit növüdür.İxrac kediti sığortası isə ixracatçını ticarətdə rast gələ biləcəyi risklərdən sığortalayır.Belə ki,ixrac krediti sığortası olan ixracatçının satdığı mal üçün vaxtında və lazımi məbləğdə alıcı tərəfindən ödəniş edilmirsə və bu hal ixracatçıya zərər vurursa,bu zaman həmin məbləğ ixrac krediti aldığı bank və ya dövlət tərəfindən kompensasiya edilir.Bu ixracatçılara stimul verir və etibarlə şəkildə ixrac fəaliyyətini həyata keçirmək üçün onlara imkan yaradır.İxrac kredit sığortası satıcını xarici alıcı tərəfindən ödəniş etməmək riskindən qoruyur.Sığorta adətən alıcının müflisləşməsi, iflas və ya defolt kimi kommersiya risklərini əhatə edir.İxrac krediti və ixrac krediti sığortasının tətbiqi xüsusilə Çin və Hollandiyada geniş yayılmışdır.Bu cür tədbirlərin tətbiqi fonunda yalnız ixracın stimullaşdırılması və yeniliklərin tətbiqi sayəsində iqtisadi inkişafa nail olmaq olar.

**NƏTICƏ**

Xarici ticarətin tənzimlənməsi daxili bazarın qorunması və iqtisadi təhlükəsizliyin təmin edilməsi zərurətindən ortaya çıxan bir məsələdir.Dünya təcrübəsində xarici ticarətin tənzimlənməsində istifadə olunan bir sıra qayda və metodlar varki,bu üsullar hər bir ölkə tərəfindən özünün iqtisadi vəziyyətinə uyğunlaşdırılaraq istifadə olunur.Bu üsullar içərisində gömrük-tarif və qeyri-tarif tənzimləmə metodları olmaqla iki başlıca istiqamət seçilir.Qeyd edilən tənzimləmə metodlarının tətbiqi iqtisadiyyatda bəzi mənfi və müsbət effektlər doğurur.Qeyri-tarif tənzimlənməsi tədbirlərinin tətbiqinə nisbətən tarif tənzimlənməsi üsulları daha məqsədəuyğun hesab olunur.Xarici ticarətin tənzimlənməsində inzibati tədbirlərin tətbiqi azaldılmalı və mümkün qədər iqtisadi tədbirlərin tətbiqinə yer verilməlidir.Çünki,inzibati tədbirlər iqtisadi tədbirlərə nisbətən iqtisadi inkişafa daha az təsir edir və onlar sadəcə ticarətin məhdudlaşdırılması xüsusiyyəti daşıyır.Azərbaycanın xarici ticarətində təkmil sığorta sistemi yaradılmalı,ixrac kredit sığortasının tətbiqinə başlanmalıdır.Eyni zamanda ixracın təşviqi məqsədilə "ixrac məsləhəti" sistemi inkişaf etdirilməlidir.İxrac məsləhəti xidməti göstərən şirkətlərin yaradılması xarici iqtisadi fəaliyyət subyektlərinə peşəkarlardan tövsiyə

almağa və öz fəaliyyətlərini genişləndirməyə imkan verə bilər.Bundan başqa "Yaşıl Dəhliz" buraxılış sistemindən istifadə genişləndirilməli və sistemin istifadəsi üçün xarici iqtisadi fəaliyyət iştirakçıları bu barədə məlumatlandırılmalıdır.

**ƏDƏBIYYAT SIYAHISI**

1. "Azərbaycan Respublikasının Gömrük Məcəlləsi"-24 iyun 2011-ci il
2. "Azərbaycan Respublikasında xarici ticarətin tənzimlənməsinin təkmilləşdirilməsi haqqında" AR Prezidentinin Fərmanı,17 noyabr1996,№ 520
3. "Azərbaycan Respublikasında xarici ticarətin daha da liberallaşdırılması" haqqında AR Prezidentinin Fərmanı,24.06.1997,№609
4. "Xarici ticarət iştirakçılarının "Yaşıl dəhliz" buraxılış sistemindən daimi istifadə hüququnu əldə etməsi, həmin hüququn dayandırılması, ləğvi və bərpası Qaydası"nın təsdiq edilməsi haqqında AR Prezidentinin Fərmanı,21 dekabr 2018,№427
5. "Səlahiyyətli iqtisadi operator statusunun verilməsi, müvəqqəti dayandırılması və ləğv olunması Qaydaları"nın təsdiq edilməsi haqqında AR NK Qərarı,27 avqust 2013,№ 230
6. A.M.Məhərrəmov,H.H.Aslanov. Xarici iqtisadi fəaliyyətin tənzimlənməsi.Dərslik.Bakı-2008
7. Şəkərəliyev A.Ş.,Yadulla qızı Y.M.,Aslanova M.M.Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətində gömrük işinin rolu. Metodik vəsait.Bakı: "İqtisad Universiteti"Nəşriyyatı-2016.150 səh.
8. M.A.Əhmədov,A.C.Hüseyn.İqtisadiyyatın dövlət tənzimlənməsinin əsasları.Metodik vəsait.Bakı-2011
9. www.customs.gov.az
10. www.azpromo.az

# COVİD-19 KONTEKSTİNDƏ MƏCBURİ PEYVƏNDLƏNMƏNİN HÜQUQİ ASPEKTİ: MƏCBURİ "KÖNÜLLÜLÜK" YOXSA?

**LƏMAN ƏLICANOVA**
Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyası
Hüquqşünaslıq fakültəsi
*alicanova2005@gmail.com*
AZƏRBAYCAN,BAKI ŞƏHƏRI

**XÜLASƏ**

Bu gün müasir tibbin ən mühüm nailiyyətlərindən sayılan peyvəndlər epidemiyalarla mübarizədə bəşəriyyətin əldə etdiyi ən təsirli silahdır.Dövlətlər vətəndaşların yaşamaq hüququnu,dövlət orqanlarının,digər şəxslərin və şəxslərin özlərinin hərəkətləri nəticəsində yarana biləcək risklərdən qorumağa borcludurlar.Bu halda qarşımıza bir sual çıxır, vətəndaşların razılığı olmadan,cəmiyyətin sağlamlığının qorumaq məqsədi ilə peyvəndlənmə prosesinin məcburi hala salınması hüquqi baxımdan nə dərəcədə doğrudur? Şübhəsiz ki,məcburi peyvəndləmə fərdi hüquq və azadlıqlara müdaxilə olacaq,amma bu da bir həqiqətdir ki,hər müdaxilə hüquq pozuntusu yaratmır.Bu məqalədə COVİD-19 epidemiyası zamanı yaradılan peyvəndlərin məcburi hala gətirilməsinə hüquqi aspektdən yanaşılır,həm beynəlxalq qanunvericilik,həm də milli qanunvericilik təhlil olunaraq bu suala cavab tapılır.Məqalədə Avropa İnsan Hüquqları Məhkəməsinin,o cümlədə Türkiyə Anayasa Məhkəməsinin bu sahədə verdiyi qərarlara istinad edilib,analogiya üzrə COVİD-19-a tətbiq edilmişdir.Həmçinin ölkəmizdə məcburi peyvəndlənmənin hüquqi aspekti araşdırılmış və bu sahədə qanunvericiliyimizdə olan problemlər təhlil olunmuşdur.Sonda,COVİD-19 və digər peyvəndlərin məcburi edilməsi mümkünlüyünün Azərbaycan Respublikası Qanunvericiliyinə uyğunluğu qiymətləndirilmişdir.

**AÇAR SÖZLƏR: Məcburi peyvəndlənmə , covid-19 , hüquqauyğunluq**

**ABSTRACT**

Today, vaccines, which are considered to be one of the most important achievements of modern medicine, are the most effective weapons available to mankind in the fight against epidemics.States are obliged to protect the right to life of citizens from the risks that may arise as a result of the actions of state authorities, other persons and persons themselves.In this case, we have a question, to what extent is it legally correct to make the process of vaccination mandatory without the consent of the citizens, in order to protect the health of the society? Undoubtedly, compulsory vaccination will be an interference with individual rights and freedoms, but it is also a fact that not every interference creates a violation of rights.In this article, the mandatory vaccinations created during the COVID-19 epidemic are approached from a legal point of view, both international legislation and national legislation are analyzed and an answer to this question is found.The article referred to the decisions of the European Court of Human Rights, including the Turkish Constitutional Court in this field, and applied them to COVID-19 by analogy.Also, the legal aspect of compulsory vaccination in our country was investigated and the problems in our legislation in this field were analyzed.In the end, compliance with the legislation of the Republic of Azerbaijan on the possibility of mandatory vaccination of COVID-19 and other vaccines was assessed.

**KEY WORDS: Mandatory vaccination , covid-19 , legal compliance**

**GIRIŞ**

Çinlilər tərəfindən 1000-ci illərdən tətbiq edilən peyvənd və peyvəndlənmə,müasir tibbin ən önəmli nailiyyətlərindən biridir (Akkoyunlu SA,2017). Peyvəndlənmə üsulu ilə keçmişdə milyonlarla insanın ölümü və ya əlil qalmasına səbəb olan çiçək xəstəliyi demək olar ki,yer üzündən silinmiş, uşaq iflici(polio) yox olmaq dərəcəsinə enmiş, suçiçəyi,hepatit və digər yoluxucu xəstəliklərin yayılması böyük ölçüdə əngəllənmişdir.Heyvanlardan keçən xəstəlikləri qabaqlamaq məqsədi ilə də peyvəndlər dünyada geniş olaraq istifadə edilir( Ruacan Ş,Türker K, Oder BE,2015).

Şəxsin bədən bütövlüyünə birbaşa və ya dolayı təsir tələb edən müdaxilələr şəxsin azad və birbaşa iradəsi olduqda,ona bu haqqda kifayət qədər məlumat verdikdə,ondan icazə alındıqdan sonra həyata keçirilə bilər.Kifayət qədər məlumatın verilməsindən sonra,şəxsin müdaxiləyə icazə vermə haqqı olduğu kimi,rəddetmə haqqı da vardır (Okyay RA,Akbaba M, Kirkit E,2015) .Peyvənddə insan bədəninə edilən tibbi bir müdaxilə olduğuna görə, qarşımıza belə bir maraqlı sual çıxır: şəxslərin razılığı olmasa da, məcburi peyvəndləməyə məruz qala bilərlərmi? Biz bu sualın cavabını COVİD-19 peyvəndləri kontekstində həm milli hüquq həm də beynəlxalq hüquq aspektindən cavablamağa çalışacayıq.Qeyd etmək lazımdır ki, məqaləmizin başlığı "Covid-19 kontekstində məcburi peyvəndlənmənin hüquqi aspektləri" olsa da,bu mövzu hələ də məhkəmə qərarlarında öz əksini tapmamış məsələdir,ona görə də digər məcburi peyvənd təcrübələri ilə bağlı hüquqi müzakirələr və əsaslandırmalar bizə bu məsələdə yol göstərəcəkdir.

Başlanğıc nöqtəsində,məcburi peyvəndlənmə dedikdə nəyin nəzərdə tutulduğunu aydınlaşdırmalıyıq.Peyvənd "məcburi" və "edilməsi tövsiyyə olunan" olaraq iki cür təsnif olunur.Bunlardan edilməsi dövlət tərəfindən həyata keçirilən və şəxslərin peyvəndi rəddetməsi zamanı ölkədən-ölkəyə fərqli olsa da,müxtəlif sanksiyaların nəzərdə tutulduğu peyvəndlər "məcburi peyvəndlər" adlanır (Turhan Kasapoğlu.M,2019).Məcburi peyvənd dövlət gücündən istifadə edilərək həyata keçirilən,məcburi hala gətirilən və rədd edilməsi müxtəlif sanksiyalara səbəb olan bir tənzimləmədir.Məcburi peyvəndləmə siyasətini həyata keçirən ölkələrdə bir və ya bir neçə peyvəndin məcburi hala gətirilməsi və buna paralel olaraq peyvənd olmamış uşaqların məktəbə qeydiyyata alınmaması və ya uşaqlarını peyvənd etdirməyən ailələrə pul cəzasının verilməsi kimi hallara rast gəlinir.Müasir dövrdə məcburi peyvəndləmənin ilk nümunələrindən olan Amerikada 1900-cu illərin əvvəllərində suçiçəyi epidemiyası zamanı Massaçusets ştatının böyüklər üçün tətbiq etdiyi məcburi peyvəndləmədədə oxşar sanksiyalarla qarşılaşırıq.1902-ci ildə Massaçusets Səhiyyə Şurası,ştatın qanunverici orqanı tərəfindən ona verilən səlahiyyətlərdən istifadə edərək,21 yaşdan yuxarı bütün sağlam insanları peyvənd etmiş,imtina edənlər üçün isə gündə 5 dollar cərimə cəzası tətbiq etmişdir.Henning Jacobsson adlı bir keşiş bu cəriməni ödəməkdən imtina etdiyi üçün mühakimə olunmuş və nəhayətində Henning Jacobsson/Massaçusets işi ilə ABD Ali Məhkəməsi,dövlətin müəyyən şərtlər altında peyvəndə məcburetmə haqqını dəstəkləyən qərarını açıqlamışdır (Gur-Arie R, Jamrozik E, Kingor P,2020). Buna qarşılıq olaraq,dövlət tərəfindən edilməsi zəruri olmayan,sanksiya

nəzərdə tutlmayan,bununla belə insanlar üçün faydalı olan peyvəndlər "tövsiyyə olunan peyvəndlər"dir.

Tibbi bir müdaxilə olmaqla icazə və razılığ tələb edən peyvəndlərdən fərqli olaraq,razılıq tələb olunmayan və şəxsin özü ilə bağlı tibbi qərarları almasında otonomi prinsipilə zidiyyət təşkil edən məcburi peyvəndlənmə,hüquqi əsaslara söykənə bilərmi? Əgər qanuni olarsa və hüquqi əsaslara dayanarsa,şərtləri nələrdir? Buradan yola çıxaraq COVİD-19 peyvəndləri üçün də eyni əsaslar analogiya üsulu ilə tətbiq oluna bilərmi?

Ümumiyyətlə,məcburi peyvəndləmə müdaxilələrinin həm yerli,həm də beynəlxalq məhkəmələrdə necə idarə olunub,müvafiq hüquq normalarının nə tərzdə şərh edilməsindən asılı olaraq, COVİD-19 peyvəndləri üçün də analogiya üsulundan istifadə edib faydalana bilərik.Elə bu məqamda,gəlin,beynəlxalq hüquq və Azərbaycanın hal-hazırda hüquqən bağlı olduğu Avropa İnsan Hüquqları Konvensiyası və Konvensiyanın pozuntularını araşdıran Avropa İnsan Hüquqları Məhkəməsinin qərarlarından başlayaq.

## MƏCBURI PEYVƏNDLƏNMƏ ILƏ BAĞLI MƏHKƏMƏ QƏRARLARI

### A. AVROPA İNSAN HÜQUQLARI MƏHKƏMƏSININ QƏRARLARI

Məcburi peyvənd məsələsi ilə bağlı Avropa İnsan Hüquqları Məhkəməsinə gələn və 1998-ci ildə baxılan Carlo Boffa/V.San Marino işində iddiaçı,səhiyyə nazirliyi tərəfindən edilməsi tələb edilən peyvəndi uşaqlarına etməmişdir.İddiaçı: peyvəndlə bağlı ölüm sayının yüksək olması qarşısında,peyvəndin məcburi tətbiq olunmasının Avropa İnsan Hüquqları Konvensiyasının 2-ci maddəsində nəzərdə tutulan "yaşamaq hüququ"nun pozulması olduğunu irəli sürmüşdür.Eyni zamanda uşaqlarının peyvənd olub-olmamasına dair qərarında özünə buraxılmadığına görə Konvensiyanın 8-ci maddəsinin pozulduğunu diqqətə çəkmişdir ( Europe Court of Human Rights (ECHR), Carlo Boffa and 13 others v/San Marino, 15/01/1998).

Avropa İnsan Hüquqları Məhkəməsinin 2012-ci ildə verdiyi Solomakhin/Ukrayna işində isə yuxarıdakından fərqli olaraq bu dəfə peyvəndlənən iddiaçı, 34 yaşında olan bir yetişkin insandır.İddiaçı razılığı olmadaan vurulan "Difteri" peyvəndinin əks təsiri nəticəsində xroniki xəstəliyə tutulduğunu və bu səbəblə məcburi peyvəndin hüquqazidd şəkildə onun şəxsi həyatına müdaxilə etdiyini qeyd etmişdir (Europe Court of Human Rights (ECHR, Case of Solomakhin v. Ukraine, 24/09/2012).

Avropa İnsan Hüquqları Məhkəməsinə gələn və 2021-ci il aprel ayında verilən ən yeni qərarda,məcburi peyvəndləri etdirmədiklərinə görə uşaqları bağçaya qəbul edilməyən bir qrup Çexiyalı ailənin müraciətinə baxılmışdır (Kale Özçelik F,2020).

Şəxsi həyata və ailə həyatına hörmət hüququ,şəxsin özəl həyatının başqalarından gizli saxlanılmasından daha geniş bir anlayışdır. Belə ki,Avropa İnsan Hüquqları Konvensiyasının 8-ci maddəsinin qoruduğu dəyərlərdən biri də şəxsin fiziki və əqli bütövlüyüdür.Tibbi bir müdaxilə olan məcburi peyvənd,Məhkəmə qərarlarında fiziki bütünlük kimi incələnmiş və yuxarıda sadalanan bütün qərarlarda,məcburi peyvəndin 8-ci maddəyə yönəlik bir müdaxilə təşkil etdiyi vurğulanmışdır (Krasser A.2021). Bununla belə,bu bir müdaxilə olsa belə,bu müdaxilənin yenə də hüquqauyğun olması mümkündür.Qəribə səslənsə də,bu mümkündür və məhz 8-ci maddənin təhlili və hüquqi analizi bizə bunu deməyə əsas verir.Avropa İnsan Hüquqları Bəyannaməsinin 8-ci maddəsinin 2-ci bəndinin təhlili bizə müdaxiləni hüquqauyğun hala gətirən 3 ünsürü göstərmişdir.Bu ünsürlərdən ilki,şəxsi həyata hörmət hüququna ediləcək müdaxilənin əvvəlcə qanuni bir əsasının olması yəni,haqqın ancaq qanun ilə məhdudlaşdırıla bilməsidir.Hüququ məhdudlaşdıran hüquqi əsasın mövcudluğundan başqa ikinci ünsür,müdaxilənin qanuni məqsədlərə çatmaq üçün edilməsi,üçüncü ünsür isə müdaxilənin demokratik bir cəmiyyətdə lazımlı olmasıdır.Beləliklə,qanuni məqsədlə həyata keçirilən müdaxilənin demokratik cəmiyyətə mütənasib bir müdaxilə olması gözlənilir.Dediklərimizi ümumiləşdirib,məhkəmə və hüquqi araşdırmalarla birgə dəyərləndirsək belə bir ölçülülük səviyyəsi ortaya qoya bilərik: əlverişlilik,zərurilik və mütənasiblik.

Əlverişlilik: Qanuni əsasa sahib bir müdaxilənin,gözlənilən qanuni məqsədi həyata keçirtmək üçün kifayət və əlverişli olması

Zəruruilik: Gözlənilən məqsəd üçün müdaxilənin zəruri olması

Mütənasiblik: Əldə ediləcək və gözlənilən məqsədlə müdaxilə arsında ölçülmüş və ağlabatan tarazlığın olması

Avropa İnsan Hüquqları Məhkəməsi məcburi peyvəndləmə ilə bağlı verdiyi qərarlarda xülasə olaraq,məcburi peyvəndlənmənin qanunla və yoluxucu bir xəstəliyin yayılmasını qabaqlamaq məqsədilə cəmiyyətin sağlamlığını qorumaq kimi qanuni bir məqsədlə edildiyini bildirmişdir.Şəxsin öz mənfəətlərini həyata keçirtməsinə manea olmayan və həyatını təhlükəyə atmayan bir məcburi peyvəndlənmə siyasəti,dövlətin müvafiq məsələdə səlahiyyət çərçivəsini aşmır və demokratik cəmiyyətdə mütənasiblik ünsürünü pozmur.Göründüyü kimi,qanunilik şərtlərinə cavab verən məcburi peyvənd müdaxilələri baxımından,şəxsin fiziki toxunulmazlığının qorunmasına marağı qarşısında ictimaiyyətin və cəmiyyətin sağlamlığının qorunması marağı daha üstündür.Sözügedən müdaxilələrin şəxsi həyata hörmət hüququnu pozmadığıda qərara alınıb.Məhkəmənin diqqət mərkəzində saxladığı məcburi peyvəndin "Müvafiq şəxsin həyatı baxımından təhlükə yaratmaması","Məcburi peyvəndlənmənin şəxs üzərindəki ağırlığının,peyvəndsiz cəmiyyət üzərindəki yükdən daha yüngül olması" məsələləri ayrıca önəm daşıyır (Kale Özçelik F,2020).

**B. MƏCBURI PEYVƏNDLƏMƏ ILƏ BAĞLI TÜRKIYƏ ANAYASA MƏHKƏMƏSININ QƏRARLARI**

Məcburi peyvəndlərlə bağlı verdiyi qərarlardan 2015-ci il tarixli olan və fərdi şikayət yolu ilə məhkəməyə gələn Halime Sare Aysal müraciətində,Türkiyə Anayasa Məhkəməsi ailənin icazəsi alınmadan uşaqlıq dövrü peyvəndlərinin vurulub vurula bilməyəcəyinə dair dəyərləndirmə etmişdir (T.C.Anayasa Mahkemesi Kararlar Bilgi Bankası.Halime Sare Aysal,2015).Halime Sare Aysal işində Aile ve Sosyal Politikalar Bakanlığının(Ailə və Sosial Siyasətlər Nazirliyinin) müraciəti əsasında birinci instansiya məhkəməsi "Genişləndirilmiş Peyvənd Proqramı"nda yer alan peyvəndlərin zəruriliyi haqqında ailəni məlumatlandırmış,lakin buna baxmayaraq,ailə buna icazə verməmiştir.Buna görə də,uşağı "qorunmaya möhtac uşaq" olaraq qiymətləndirərək peyvəndlərin vurulmasına qərar verilmiştir.Nəticədə bütün daxili hüquq yollarından istifadə etmiş olan ailə,Anayasa Məhkəməsinə fərdi ərizə ilə müraciət etmişdir.Türkiyə Anayasa Məhkəməsi müraciəti,"şəxsi və ailə həyatına hörmət hüququ"," bəzi tibbi zərurətlər və qanunda sadalanan hallar istisna olmaqla şəxsin bədən bütövlüyünə toxunulmaması"," tibbi müdaxilədən imtina hüququ","əsas hüquq və azadlıqlara müdaxilənin məhdudlaşdırılmasında qanunilik şərti" prinsipləri kontekstində dörd əsas başlıq altında dəyərləndirmişdir.Bu qərarda Türkiyə Anayasa Məhkəməsi Avropa İnsan Hüquqları Məhkəməsi ilə paralel olaraq şəxsi həyat anlayışını geniş şərh etmiş və bu hüququn yalnız şəxsi toxunulmazlıq hüququna endirilə bilinməyəcəyini və şəxsin fiziki toxunulmazlığınında şəxsi və ailə həyata hörmət hüququ çərçivəsində qorunduğunu bildirmişdir.Türkiyə Anayasa Məhkəməsi Anayasanın 17-ci maddəsini diqqət mərkəzindədə saxlamışdır:

17.2-Tibbi zərurətlər və qanunda nəzərdə tutulmuş hallar istisna olmaqla,şəxsin fiziki toxunulmazlığına müdaxilə edilə bilməz və razılığı olmadan elmi və tibbi təcrübələrə məruz qala bilməz

Anayasa 17-ci maddə ilə bağlı olaraq şəxsin razılığı olmadan ediləcək tibbi müdaxilənin hüquqauyğunluğunu təmin edən hallardan biri tibbi məcburiyyət digəri isə qanuna əsaslanmasıdır.Məhkəmə isə tibbi məcburiyyət terminə belə bir açıqlama gətirmişdir; "Şəxsin razılığının alınmasının mümkün olmadığı,ancaq müdaxilə edilməməsi halında çox zaman şəxsin həyatı itirməsi ilə bağlı olan hallar" ( Kara M,2017)

Nəticə olaraq,Türkiyə Anayasa Məhkəməsi bu qərarda,qanuni əsası olmadığı səbəbinə dayanaraq peyvəndə məcburetmənin(məcburi peyvəndlənmənin) şəxsi hüquq pozuntusu olduğuna qərar vermişdir.

**ÖLKƏMIZDƏ MƏCBURI PEYVƏNDLƏMƏNIN HÜQUQI STATUSU**

**C. QANUNVERICILIYIMIZ MƏCBURI PEYVƏNDLƏMƏYƏ ICAZƏ VERIRMI?**

İlk öncə onu vurğulamalıyıq ki,ölkəmizdə məcburi peyvəndi birbaşa qadağan edən və ya buna icazə verən heç bir norma mövcud deyildir.Bundan başqa,məcburi peyvəndin hüquqi olub-olmaması,peyvəndlənmə zamanı münasibətlərin necə tənzimləsi,peyvəndin əks göstərişi nəticəsində şəxsə zərər dəyməsi kimi məsələlərlə bağlı qanunvericiliyimiz heç bir tənzimləmə müəyyən etməmişdir.Düşünürəm ki,hüquq sistemimizin peyvəndlənmə məsələsinə reaksiya göstərməməsi,bu sahədə müəyyən fəaliyyətlər aparmaması bu məsələlərlə bağlı çaşqınlığa və qeyri-müəyyənliyə səbəb olur.Belə ki,peyvəndlənmə zamanı peyvəndin xəstəyə əks təsir göstərməsi,məcburi peyvəndləməyə icazə verilib-verilməməsi,bunun hüquqauyğun olub-olmaması və bu kimi digər məsələlər qanuni nizamlamadan kənarda qalmışdır.

Azərbaycan Respublikası Konstitusiyasının 41-ci maddəsi və "Əhalinin sağlamlığının qorunması" haqqında qanununu 10-cu maddəsində hər kəsin sağlamlığını qorumaq və tibbi yardım almaq hüququ olduğu əks olunmuşdur.Burdan belə bir nəticəyə gəlmək olar ki,şəxslərin öz sağlamlığını qorumaq kimi bir hüquqları var və qanunvericilik buna hər iki mənbədə qeyd etməklə bunun vəzifə deyil,məhz hüquq olduğunu vətəndaşların diqqətinə çatdırmışdır.Hər bir şəxs bu hüququnu öz iradəsi,razılığı ilə istifadə edə və ya tam əksinə sükut vəziyyətində saxlaya bilər.Bəs bu hüquqa müdaxilə və bu hüququn məhdudlaşdırılması nə dərəcədə doğru və hüquqauyğundur? Hüquq sistemimiz bu cür tibbi müdaxiləyə dolayıda olsa,icazə verirmi? Gəlin,qanunvericiliyimizin bu məsələdə bizə necə yol göstərdiyinə baxaq.

Konstitusiyamızın 71-ci maddəsinin 9-cu hissəsinə əsasən, hər kəs qanunla qadağan olunmayan hərəkətləri edə bilər və heç kəs qanunla nəzərdə tutulmayan hərəkətləri etməyə məcbur edilə bilməz.Bu müddəanın özü bizə bu mövzuya 2 fərqli tərəfdən baxmağa imkan verir.Məcburi peyvəndlənmə qanunla qadağan olunmayıb,onda demək bu növ fəaliyyətə dolayıda olsa,icazə verilir.Digər tərəfdən məcburi peyvəndləmə qanunda nəzərdə tutulmayıb,onda heç kəs peyvəndlənməyə məcbur edilə bilməz.Göründüyü kimi,konstitusiyamızın bu müddəası bizi 2 fərqli yanaşmaya sürüklüyür.Deməli, biz xüsusi tənzimləməyə ehtiyac duyuruq.Nədir bu xüsusi tənzimlənmə?

Məcburi peyvəndlənmənin bir növ tibbi müdaxilə olduğunu,tibbi müdaxiləyə isə yalnız şəxsin razılığı ilə yol verildiyini qeyd etdik.Bununla bağlı "Əhalinin sağlamlığının qorunması" haqqında qanunun 27-ci maddəsinə istinad etməyimiz doğru olardı:

-Qanunvericilikdə nəzərdə tutlan hallar(təcili və təxirəsalınmaz tibbi yardımın zəruri olduğu hallar) istisna olmaqla,vətəndaşın və ya onun qanuni nümayəndəsinin tibbi müdaxilədən imtina etmək,yaxud onun dayandırılmasını tələb etmək hüququ vardır.

-Tibbi müdaxilədən imtina etdikdə vətəndaşa,yaxud onun qanuni nümayəndəsinə mümkün olan nəticələr barədə izahat verilməlidir.Tibbi müdaxilədən imtina edilməsi və onun gələcək nəticələri barədə izahat vətəndaşın tibbi sənədlərində qeyd olunur və onun özü,yaxud qanuni nümayəndəsi,eləcə də tibb işçisi tərəfindən imzalanır.

Deməli,bizim axtarışında olduğumuz xüsusi tənzimlənmə budur.Bu müddəa bizə onu deməyə əsas verir ki,şəxslərin peyvənddən imtina etmək kimi hüququ vardır,bu halda qanunvericilik dolayıda olsa,məcburi peyvəndlənməyə icazə verməmiş olur.

### 3.2 MƏCBURI PEYVƏNDLƏMƏ KONTEKSTINDƏ QANUNVERICILIKDƏ MÖVCUD PROBLEMLƏR VƏ HƏLLI YOLLARI

2019-cu ilin dekabrında COVİD-19 ilə ilk qarşılaşma və daha sonra Ümumdünya Səhiyyə Təşkilatının bu virusu qlobal epidemiya adlandırması məcburi peyvənd müzakirələrini daha da populyarlaşdırdı.Məqaləmizin yazılıdığı tarixdə dünya artıq normallaşma prosesinə girsə də,nəzərə alınmalıdır ki,bu epidemiya dünyanın qarşılaşdığı ilk epidemiya deyil və çox güman ki,son da olmayacaq.Dolayısı ilə,məcburi peyvəndlənmənin hüquqi ölçüsünü təyin etmək,milli qanunvericiliklərdə bunu nizamlamaq böyük önəm daşıyır.Yuxarıda qeyd etdiyimiz kimi,ölkəmizdə məcburi peyvəndi birbaşa qadağan edən və ya buna icazə verən heç bir norma mövcud deyildir.Təəssüflə qeyd etməliyik ki,qanunvericilikdə nəinki məcburi peyvəndləmə,həmçinin epidemiya və peyvəndlənmə prosesi də tənzimlənməyib.Bu da öz növbəsində çaşqınlığa və qeyri-müəyyənliyə gətirib çıxardır.Əminəm ki,hamını bir sual maraqlandırır: Epidemiya və yoluxucu xəstəliklərin bu qədər yayıldığı və vaksinasiyanın bu qədər həyata keçirilib ,populyarlaşdığı bir zamanda niyə hələ də hüquq sistemi bu münasibətləri tənzimləyib,çaşqınlıqlara və müzakirələrə son qoymur?

Əslində,qanunvericiliyimizdə "Əhalinin sağlamlığının qorunması" haqqında qanun geniş tətbiq və istifadə olunur.Amma maraqlısı budur ki,bu qanun epidemiya və peyvəndləmə ilə bağlı münasibətləri tənzimləmir.Düşünürəm ki,bu qanunvericilikdə olan mövcud problemlərdən biri hesab olunmalıdır.Dünyanın epidemiya və yoluxucu xəstəliklərlə bu qədər mübarizə apardığı dövrdə bu məsələlərin hüquqda öz yerini tapmaması,tənzimləmədən kənarda qalması doğru bir hal deyildir.Doğrudur,bu qanunun 1997-ci ildə qəbul olunduğunu nəzərə alsaq,bir tərəfdən hüquq sisteminə haqq verə bilərik.Hüquq cəmiyyətdə,cəmiyyət arasında yaranan ictimai münasibətlərlə formalaşır.Əgər cəmiyyətdə yeni ictimai münasibət,tənzimlənməli yeni münasibətlər yaranırsa,bundan sonra bunları tənzim edən və qaydaya salan hüquq normaları yaradılır.1997-ci ildə epidemiya və

yoluxucu xəstəliklərin indiki qədər yayılmadığını və müasir dövrdə bu sahədə olan problemlərin olmadığını nəzərə alsaq,bu qanunda epidemiya və peyvəndləmə ilə bağlı müddəaların olmamasını normal hesab edə, və bu qanunun o dövr üçün ideal hesab oluna biləcəyini güman edə bilərik.Amma müasir dövr üçün eyni şeyi deyə bilmərik.İllər keçdikcə cəmiyyət,insanlar arasındakı münasibət,dünya dəyişir və yeni münasibətlər yaranır,hüququn üstünə düşən yük ağırlaşır.Hüquq artıq cəmiyyətə uyğunlaşmaqla bərabər yeni münasibətlərədə cavab verməli və tənzimləməli olur.Bu halda, "Əhalinin sağlamlığının qorunması"haqqında qanunun 1997-ci ildə qəbul olunmasını əsaslı səbəb saya bilmərik.Belə ki,2019-cu ildən etibarən dünyanın üzləşdiyi bu fəlakət özü ilə birgə bir sıra hüquqi suallarda ortaya çıxarmışdır.Bu saullardan biri və ən başlıcası da məhz budur: Məcburi Peyvəndləmə qanuni və hüquqauyğun bir tibbi müdaxilədirmi?

Qəbul etməliyik ki,qanunvericiliyimizi təhlil edib dolayısı ilə bu suala cavab tapmaq mümkündür.Qanunvericilik şəxslərin tibbi müdaxilədən imtina kimi bir hüququ olduğunu qeyd etməklə,dolayısı ilə olsa da,məcburi peyvəndləməyə icazə vermədiyini qeyd edir.Amma belə bir reallıqda var ki,COVİD-19 epidemiyası artıq səngisədə,heç kim bizə gələcəkdə bundan daha güclü və yoluxucu bir epidemiyanın olmuyacağı qarantiyasını verə bilməz.Və bu zaman ölkəmizin məcburi peyvəndləməyə mövqeyinin necə olacağı,məcburi peyvəndləmənin tətbiq olunub-olunmayacağı bizə məhz o zaman aydın olacaq.Elə buna görə də,"Əhalinin sağlamlığının qorunması" haqqında qanuna epidemiya və peyvəndləmə ilə bağlı müddəaların əlavə edilməsi və bunun bir fəsildə cəmləşdirilməsi daha məqsədəuyğun olardı.Belə olduğu halda,həm hökümət həm də vətəndaşlar üçün çaşdırıcı suallara son qoyuluar, və forsmajor hallarda ediləcək hərəkətlərin hüquqauyğun olub-olmaması sualı vaxt almaz.Ümid edirik ki,qanunvericilik tezliklə hüquqi tənzimləmədən kənarda qalan məsələləri öz çətiri altına alıb bu problemləri həll edər.

**COVİD-19 VƏ DİGƏR PEYVƏNDLƏRİN MƏCBURİ EDİLMƏSİ MÜMKÜNLÜYÜNÜN AZƏRBAYCAN RESPUBLİKASI QANUNVERİCİLİYİNƏ UYĞUNLUĞU**

Qanunvericiliyimizin məcburi peyvəndləməyə icazə ehtiva etməməsini qeyd eləsəkdə,klinik,ağır gedişli və yoluxuculuğu yüksək olan bir xəstəliyin ortaya çıxması halında,cəmiyyətin təhlükə altında olmasını nəzərə alaraq,məcburi peyvəndləmənin tətbiq oluna biləcəyi ilə bağlı fikirləri COVİD-19 vaksinləri baxımından qiymətləndirək.Ancaq ilk öncə xüsusilə şəxsin şəxsi həyatına və digər hüquq və azadlıqlarına müdaxilənin: əlverişlilik,zərurilik,mütənasiblik meyarlarına uyğunluğunu dəyərləndirə bilərik (Kanadoğlu K,2021)

**D. ƏLVERIŞLILIK:**

Peyvəndlər yoluxucu xəstəliklərlə mübarizə aparan,xəstəliyin sağlam şəxslərə yoxuldurulmasını əngəlləyən qoruyucu bir tədbirdir.Bu mənada peyvənd olma hüququ olduğu halda peyvəndlənməyən uşaqlar daxil hər kəs,peyvəndlənməyən həssas qrupların xəstəlik riskini artıracağını,hətta peyvəndlənməyə uyğun olmayan şəxslərin belə həssas və köməksiz şəxslərin yaşam haqqını təhdid etdiyini deyə bilərik( Etiler N. Yükselen Bir Toplum Sağlığı Sorunu Olarak: Aşı Reddi. Hukuk Defterleri,2019). Bu vəziyyətdə hal-hazırda COVİD-19-a qarşı daha etkili bir qoruyucu metod və ya müalicə tapılmadığından,insan sağlamlığına zərər verməmək şərti ilə COVİD-19 virusuna qarşı kəşf edilən peyvəndlərin,cəmiyyətin sağlamlığını qorumaq üçün əlverişli bir metod olduğunu deyə bilərik.Ancaq bunu demək üçün də peyvəndin məcburi olduğu cəmiyyətdə cəmiyyətin sağlamlığı məqsədinə çatmaq üçün təairli bir metod olduğunu göstərən məlumatlar,statistikalar mövcud olmalıdır.Başqalarına zərər gəlməsinin qarşısının alınması üçün məcburi peyvəndlənmənin vacib olduğu düşünülürsə,məsələn peyvəndin yoluxma dərəcəsini kəskin azaltdığını və ya tamamən kəsdiyini göstərən sübut mövcud olmalıdır.İcazə verilən peyvənd keyfiyyətli,etibarlı olmalı və məcburi hala gətiriləcəyi şəxslər üçün pulsuz olmalıdır.Yetərli keyfiyyət,etibarlılıq və pulsuz olmaması, peyvənd olunması vacib olan ancaq peyvənd əldə edə bilməyən şəxslər üzərində yük yaradacaq və səhiyyə xidmətlərində sosial bərabərsizlik yarada və bunu dərinləşdirəcəkdir.

Effektivlik kontekstində peyvəndin təhlükəsizliyi də nəzərə alınmalıdır.Vaksinasiya məcburi olacaqsa,onun etibarlılığını sübit edən məlumatlar olmalıdır.Təhlükəsizliyə dair məlumatlar olmadıqda və ya peyvəndlə bağlı risklərin peyvənd olmamaqla bağlı risklərdən çox olduğu hesab edildikdə,məcburi peyvəndləməni bu əsasda haqlı çıxartmaq mümkün olmayacaqdır.Təcili və ya şərti istifadə üçün icazə verilən peyvəndlərin təhlükəsizlik meyarına cavab verib-verməməsinə xüsusi diqqət yetirilməlidir.Yetərli təhlükəsizlik sübutunun olmadığı hallarda,məcburi peyvəndlənmənin cəmiyyətin sağlamlığını qorumaq hədəfinə çatacağına heç bir zəmanət olmayacaq.Peyvənd yetəri

qədər təhlükəsiz qəbul edilsə belə,peyvəndlə bağlı yaranabiləcək zərərləri aradan qaldırmaq üçün təzminat planları ilə məcburi peyvəndləmə prosesinin həyata keçirilməsi tövsiyyə olunandır.Çümki peyvənddən zərər görən insanların məcburi müdaxilədən yaranan zərərlərdən dolayı hüquqi çarə axtarmasını tələb etmək ədalətsizlik olacaqdır ( World Health Organization. COVID-19 and Mandatory vaccination: Ethical considerations and caveats. 13 April 2021) .COVİD-19-a qarşı peyvənd axtarma və təkmilləştirmə işləri,dünya miqyasında daha öncə görülməmiş bir sürətdə və miqyasda baş vermişdir.Ona görə də,COVİD-19 peyvəndlərinin nə qədər müddət immunitet təmin edəcəyi və əks təsirlərinin nə olacağı bu gün üçün hələ də dəqiq olaraq məlum deyil.Peyvəndlərin uzunmüddətli immunitetlə təmin edib etməyəcəyi virusun tez-tez mutasiyaya edib-etməməsindən asılıdır,sonrakı illərdə mutasiyaya uğramış virusa görə yeni peyvəndlərin kəşf olunması və cəmiyyətin yenidən peyvəndləmə ehtiyacının olub-olmaması hələ də bəlli deyil.Bu hallar baş versə,həm bütün cəmiyyətə tətbiqini çətinləşdirəcək həm də xərclərin əhəmiyyətli dərəcədə artmasına səbəb olacaq.

Başqa bir məsələni də mübahisələndirmək yerinə düşərdi ki,12 yaşdan kiçik uşaqlar üçün COVİD-19 peyvəndlərinin təhlükəsizliyi və effektivliyi ilə bağlı kifayət qədər məlumatın olmaması səbəbindən bu yaş qrupunun məktəbə qəbulunu peyvəndin şərtləri ilə əlaqələndirmək etik cəhətdən qəbuledilməz və müzakirəyə açıqdır (McMillan A. Mandatory vaccination: Legal, justified, effective? International Bar Association; Friday 19 March 2021). Bunu da qeyd edək ki, təsdiqlənmiş COVİD-19 peyvəndlərinin,xəstəliyin ağır gedişi və ölümlərin qabağını almaqda təhlükəsiz,əlverişli olduğunu açıqlayan Ümümdünya Səhiyyə Təşkilatı etik səbəblərə görə bu peyvəndlərin məcburi tətbiqinə məsafəli yanaşdığı aydın olur.

**E. ZƏRURILIK:**

Zərurulik meyarı hüquqi məqsədə çatmaq üçün tibbi müdaxilənin təcili bir ehtiyaca cavab verə biləcək son çarə olması halında qarşılanmış olacaq.Digər tərəfdən,şəxsi həyata müdaxilə və valideynlik hüquqlarını daha az məhdudlaşdıran fəqət məqsədə çatmaqda eyni dərəcədə əlverişli tədbirlər mövcuddudursa,zərurilik meyarı tapdalanacaqdır.Başqa bir sözlə,məcburi peyvəndlənmə yalnız o halda tətbiq oluna bilər ki,eyni məqsədə daha yumşaq bir metodla çatmaq mümkün deyildir.Bu halda peyvəndin tövsiyyə edilməsi yumşaq metod nümunəsi olaraq ağlımıza gələ bilər və bu şəkildə süni immunitet təmin oluna biləcəksə peyvəndə məcburetmə qanuni sayılmayacaq.İndiyədək COVİD-19-un müalicəsində effektiv nəticə verən başqa bir üsul olmadığına görə,bu məcburi müdaxilənin ərurilik meyarına uyğun olduğunu söyləyə bilərik.Yaşamağı təhdid edəcək dərəcəyə gələn qədər ciddiyət,fərqli yaş qruplarına nəzərən dəyişən rəhlükə və mutasiyaya uğrayan variantları məcburi peyvəndləmənin lehinə bir arqument ola bilər.Daha əvvələr məcburi peyvəndləmə proqramlarına daxil edilən bir çox peyvənd uşaqlar üçün nəzərdə tutulmuşdu.COVİD-19-a gəldikdə,bir qrup olaraq uşaqlar infeksiyaya daha az meyillidir və ya onlar bunu çox yüngül və asemptomatik keçirir.Fikrimcə,bu şərtlər altında,məqsəd uşaqları qorumaqdırsa,məcburi peyvəndləmənin uşaqlar üçün zəruriliyi mübahisəli mövzudur (McMillan A. Mandatory vaccination: Legal, justified, effective? International Bar Association; Friday 19 March 2021).

Yaşadığımız COVİD-19 epidemiyasını Ümumdünya Səhiyyə Təşkilatı 11 mart 2020-ci ildə "Qlobal Pandemiya" elan etmişdir.Ümumdünya Səhiyyə Təşkilatının bu qərarına əsaslanaraq bu vəziyyətin tibbi məcburiyyətin əhatə dairəsinə girdiyi iddia edilərək peyvəndlənmənin zəruruiliyi baxımında məcburi tutula bilərmi?

Tibbi məcburiyyət ümumi olaraq xəstənin icazəsinin alınmasının mümkün olmadığı,ancaq müdaxilənin edilməməsi təqdirində şəxsə ciddi zərər dəyəcəyi və çox zaman xəstənin ölümü ilə nəticələnəcək hallar üçün istifadə edilir.Peyvənd isə qabaqlayıcı bir tibbi müdaxilə olmaqla tibbi məcburiyyət çətiri altına girmir.

**F. MÜTƏNASIBLIK:**

Mütənasiblik meyarı çərçivəsində,şəxsi həyata hörmət və onunla bağlı olan hüquqlara gətirilən məhdudlaşdırmada gözlənilən məqsəd ilə məhdudlaşdırma vasitəsi arasında uyğun bir balans qurulmalıdır.Şəxsin böyük fədakarlığı göz önünə gətirilməli və cəmiyyətin mənfəəti ilə şəxsin mənfəəti arasında ədalətli bir balansın qorunub-qorunmadığı müəyyən edilməlidir.Bu halda yaşanan epidemiyanın cəmiyyətdəki təsiri,yayılma səviyyəsi,ölüm statistikası,şəxsləri yatağa məhkum etmə dərəcəsi kimi məlumatlara görə müdaxilənin balanslı olub-olmadığı dəyərləndirilir (Topçu İ, Nasuhbeyoğlu N. Gen,2020). Ancaq qəbul etməliyik ki,şəxsin yaşamaq və şəxsi həyatına hörmət hüququna edilən müdaxilənin yarada biləcəyi zərərlər ilə başqalarının sağlamlıq və yaşamaq

hüququnun qorunması arasında fayda-zərər balansını qabaqcadan görüb,təxmin etmək heç də asan deyil.Burada məcburi peyvənd,şəxsin yaşamaq və şəxsi həyata hörmət hüququ baxımından azda olsa bir risk ortaya çıxarırsa,burada əsas hüquq və azadlıqların pozulmasından söhbət gedə biləmi yoxsa cəmiyyətin sağlamlığı üçün şəxsi risklər gözə alınmalıdırmı? Avropa İnsan Hüquqları Məhkəməsinə görə bu cür müdaxilələr şəxsin sağlamlığına zərər vermədiyi müddətdə haqlıdır.Cəmiyyət sağlamlığının qorunması məqsədini daşıyan peyvəndləmə prosesinin, maraqlı şəxsin sağlamlığı və həyatı baxımından bir təhlükə yaratmaması şərtiylə,demokratik bir cəmiyyətdə lazımlı,məqsədli bir tədbir olduğunu qəbul edir (Çapar A,2021)

Müdaxilənin mütənasib olması üçün lazım olan başqa bir şərt,onun demokratik bir cəmiyyətdə zəruri olmasıdır.Məsələn, könüllü peyvəndlənmə səviyyəsinin yüksək olduğu cəmiyyətlərdə belə bir müdaxilə zəruriliyini itirəcək və qeyri-mütənasib olaraq dəyərləndiriləcək.Bu ədalətli balansın qurulabilməsi üçün ilk öncə müdaxilə edilən hüququn özünə toxunulmamalıdır.Məsələn, hüquq-mühafizə orqanları vasitəsilə insanları zorla tutub peyvənd vurmaq qeyri-mütənasib bir müdaxilədir.Ancaq məcburi peyvəndləmənin qanunla məcburi edilib,buna əməl olunmadığı hallarda müxtəlif sanksiyaların tətbiqi mütənasib bir müdaxilə olaraq qəbul edilə bilər (Gur-Arie R, Jamrozik E, Kingor P,2021).

**NƏTICƏ**

1. İstər Avropa İnsan Hüquqları Məhkəməsi,istərsə də Türkiyə Anayasa Məhkəməsinin məsələ ilə bağlı qərarlarında bildirildiyi kimi: bir hüquq və azadlığa müdaxilədən bəhs ediriksə, müdaxilənin hüquqi bir təməlinin yəni,müdaxiləyə icazə verən bir qanun hökmünün mövcud olması ilk növbədə axtarılan bir şərtdir.Şəxsin razılığı olmadan vurulan məcburi COVİD-19 peyvəndidə,digər məcburi vurulan peyvəndlərdə olduğu kimi Avropa İnsan Hüquqları Konvensiyası və Azərbaycan Respublikası Konstitusiyasında göstərilən bəzi əsas hüquq və azadlıqlara müdaxilə təşkil edir.Bu müdaxilənin hüquqauyğun sayılması üçün 3 əsas şərt tələb olunur:əlverişlilik,zərurilik,mütənasiblik.Məcburi peyvəndlənmənin qanunla və yoluxucu bir xəstəliyin yayılmasını qabaqlamaq məqsədilə cəmiyyətin sağlamlığını qorumaq kimi qanuni bir məqsədlə edildiyini,şəxsin öz mənfəətlərini həyata keçirtməsinə maneə olmadığı və həyatını təhlükəyə atmadığını,demokratik cəmiyyətdə mütənasiblik ünsürünü pozmadığını nəzərə alarsaq,bu müdaxilə qanunauyğun bir müdaxilə hesab oluna bilər.

2. Ölkəmizdə məcburi peyvəndi birbaşa qadağan edən və ya buna icazə verən norma mövcud olmasa da,"Əhalinin sağlamlığının qorunması" haqqında qanunun 27-ci maddəsi bizə onu deməyə əsas verir ki,şəxslərin peyvənddən imtina etmək kimi hüququ vardır,bu halda qanunvericilik dolayıda olsa,məcburi peyvəndlənməyə icazə verməmiş olur.Dünya artıq normallaşma prosesinə girsə də,nəzərə alınmalıdır ki,bu epidemiya dünyanın qarşılaşdığı ilk epidemiya deyil və çox güman ki,son da olmayacaq.Dolayısı ilə,məcburi peyvəndlənmənin hüquqi ölçüsünü təyin etmək,milli qanunvericiliklərdə bunu nizamlamaq böyük önəm daşıyır.Qüvvəyə mindiyi dövrdə uğurlu və ideal sayılan 1997-ci il tarixli "Əhalinin sağlamlığının qorunması" haqqında qanun üçün bu gün eyni fikirləri səsləndirmək düzgün olmaz.Düşünürük ki,hüquqi tənzimləmədən kənarda qalan məsələlərin bu qanuna əlavə olunması və tənzimlənməsi məqsədəmüvafiq olardı.

3. Qanunvericiliyimizin məcburi peyvəndləməyə icazə ehtiva etməməsini qeyd eləsəkdə,ağır gedişli və yoluxuculuğu yüksək olan bir xəstəliyin ortaya çıxması halında,cəmiyyətin təhlükə altında olmasını nəzərə alaraq,məcburi peyvəndləmənin tətbiq olunmayacağı qarantiyası yoxdur.Əgər şəxsin hüquq və azadlıqlarına müdaxilə edilib,məcburi peyvəndlənmə tətbiq olunsa belə,bu proses 3 əsas şərt olan əlverişlilik,zərurilik,mütənasiblik kimi meyarlara uyğun olmalıdır.

**ƏDƏBIYYAT SIYAHISI**


20. Akkoyunlu SA. Genel Sağlığın Korunmasına İlişkin İdari Bir Faaliyet Olarak Aşı Uygulamasının Kanuniliği. EÜHFD 2017;XXI (1–2): 43-73.
21. Azərbaycan Respublikası Konstitusiyası,"Əhalinin sağlamlığının qorunması" haqqında qanun
22. Kale Özçelik F. Hakların Çatışması ve Dengelenmesi Bağlamında Çocuklara Yönelik Zorunlu Aşı Uygulaması (Avrupa İnsan Hakları Sözleşmesi Ekseninde Bir İnceleme). Süleyman Demirel Üniversitesi Hukuk Fakültesi Dergisi 2020;10(2):47-77.
23. Schwartz JL. Evaluating and Deploying COVID-19 Vaccines – The Importance of Transparency, Scientific Integrity, and Public Trust. The New England Journal of Medicine 2020;383(18):1703-5
24. Krasser A. Compulsory Vaccination in a Fundamental Rights Perspective: Lessons from The ECtHR. ICL Journal 2021;15(2):207-33.

# SƏRHƏDKEÇMƏ VAXTININ ÖLÇÜLMƏSİNİN GÖMRÜK SİSTEMİNİN FƏALİYYƏTİNDƏ ROLU

**Qasımova Elisa Sərxan**
Dövlət Gömrük Komitəsinin Akademiyası, Bakı

**XÜLASƏ**

Müasir dünyada gömrük sisteminin qarşısında duran ən önəmli məsələlərdən biri də sərhəd buraxılış məntəqələrində yaranan darboğazların aradan qaldırılması üçün həll yolları araşdırmaq və tətbiq etməkdir. Çünki bu darboğazlar gömrük rəsmiləşdirilməsi və malların buraxılışına mənfi təsir edərək bu prosesləri gecikdirir və vaxt itkisi ilə yanaşı maddi itkilərə də səbəb olur. Ona görə də "Sərhədkeçmə vaxtının ölçülməsi" (TRS) layihəsi ÜGT tərəfindən irəli sürülmüş və onun tətbiqi bütün ÜGT üzvləri üçün vacib bir məsələyə çevrilmişdir. Ticarətin asanlaşdırılması baxımından TRS layihəsinin önəmi ondan ibarətdir ki, darboğazların aradan qaldırılmasıyla sərhəd buraxılış məntəqələrindəki tıxacların və vaxt itkisinin qarşısı alınır və bununla da daha sürətli və daha asan ticarət edilmiş olur. Bu həm də ticarət təchizat zəncirinin daha yaxşı və səmərəli idarə olunmasına gətirib çıxarır.

**Açar sözlər:** Sərhədkeçmə vaxtının ölçülməsi, malların buraxılışı, gömrük rəsmiləşdirilməsi

**SUMMARY**

One of the most important issues faced by the customs system in the modern world is the research and implementation of solutions that will eliminate bottlenecks at border crossing points. Because these bottlenecks negatively affect customs clearance and the release of goods, delaying these processes and causing financial losses as well as time loss. For this reason, “Time Release Study” (TRS) project was recommended by the WCO and its implementation has become an important issue for all WCO members. The importance of the TRS project in terms of facilitating trade is to eliminate bottlenecks, congestions and time losses at border crossing points, and to make trade faster and easier. It also leads to better and more efficient management of the commercial supply chain.

**Keywords:** Time Release Study, release of goods, customs clearance

Ticarətin asanlaşdırılması digər məsələlərlə yanaşı, Birləşmiş Millətlər Təşkilatının Dayanıqlı İnkişaf Məqsədlərini də dəstəkləyərək 21-ci əsrdə iqtisadi artımın və rifahın mərkəzi mövzusuna çevrilib. Gömrük idarələri, partnyor dövlət orqanları və özəl sektorun maraqlı tərəfləri tərəfindən, yükün sərhədlərdən sürətli hərəkətini təmin etmək məqsədiylə bir sıra təşəbbüslər, tədbirlər və innovativ həllər getdikcə daha çox həyata keçirilir. Gömrük idarələri aparıcı sərhəd orqanları kimi malların beynəlxalq hərəkətinin sürətləndirilməsində mühüm rol oynayır. Bunu nəzərə alaraq, Ümumdünya Gömrük Təşkilatı, “Sərhədkeçmə vaxtının ölçülməsi (Time Release Study – TRS)” kimi tanınan unikal strateji alət hazırlamış və onun vasitəsilə gömrük və digər dövlət orqanları, özəl sektorun maraqlı tərəfləri ilə birlikdə malların idxalı, ixracı və tranzit hərəkətləri ilə bağlı bütün sərhəd axını prosesinin səmərəliliyini və effektivliyini vaxtaşırı ölçmək mümkün olmuşdur.

Sərhədkeçmə vaxtının ölçülməsi ticarət axını prosesində darboğazları müəyyənləşdirmək və sərhəd prosedurlarının effektivliyini və səmərəliliyini artırmaq üçün zəruri tədbirlərin görülməsi məqsədilə, yükün gəlişindən fiziki buraxılışına qədər malların buraxılması və/və ya rəsmiləşdirilməsi üçün tələb olunan həqiqi vaxtı ölçmək üçün strateji, beynəlxalq səviyyədə tanınmış bir vasitədir. Ümumiyyətlə, TRS, ölkələrə aşağıdakı məqsədlər üçün istifadə etmələri tövsiyə olunan unikal bir alətdir: malların gəlişindən onların fiziki buraxılışına qədər tələb olunan faktiki vaxtı ölçmək; yük axını prosesində hər bir subyektin səmərəliliyini və effektivliyini qiymətləndirmək; malların buraxılışına təsir edən darboğazları müəyyən etmək; mövcud prosedurların yenidən qurulması üçün empirik sübut əldə etmək; sərhəd idarəçiliyinin təkmilləşdirilməsi imkanlarını müəyyən etmək; sərhəd idarəçiliyi performansının ölçülməsi üçün baza yaratmaq və sərhəd prosesinin səmərəliliyini dövri olaraq inkişaf etdirmək. TRS, bütün rəsmiləşdirmələri yerinə yetirmək üçün lazım olan ümumi vaxtı ölçür. Başqa sözlə, hər bir məsul maraqlı tərəf üçün sənədlərin hazırlanması və rəsmiləşdirmələrin tamamlanması üçün tələb olunan orta vaxt və yükün beynəlxalq təchizat zənciri boyunca iki və ya daha çox ölkə arasındakı hərəkətindəki digər orta vaxtlar kimi hər bir ayrı prosedur üçün tələb olunan

vaxtı dəqiq olaraq müəyyən edə bilər. Məsələn, TRS kontekstində, gömrük prosedurunu başa çatdırmaq üçün sərf edilən vaxt, sənədli nəzarət və malların fiziki müayinəsi üçün sərf edilən orta vaxt kimi ayrı-ayrı seqmentlərə bölünə bilər.

TRS-i tətbiq edən ölkələrin bir neçə məqsədi olsa da, prioritet və ya əsas məqsəd yüklərin beynəlxalq daşınması ilə bağlı prosedurlardakı darboğazları müəyyən etmək və onları aradan qaldırmaqdır. Bu məqsəd həm hazırkı beynəlxalq ticarət mühiti, həm də bu mühitin gələcəkdə necə dəyişə biləcəyi baxımından həlledici önəm daşıyır. Bununla belə, gömrük orqanlarını eyni zamanda milli siyasət mülahizələrinə və prioritetlərə əsaslanaraq TRS həyata keçirməyə yönəlmiş əlavə məqsədlər də motivasiya edir. ÜGT Üzvü ölkələrin gömrük administrasiyaları, əsasən aşağıdakı məqsəd(lər)i nəzərə alaraq TRS-i tətbiq edirlər:

- ❖ Gömrük və digər maraqlı tərəflərin biznes proseslərinin ümumi performansının ölçülməsi;
- ❖ Məlumat, sənədlər və maliyyə axını da daxil olmaq üzrə, beynəlxalq təchizat zəncirindəki darboğazların və/və ya malların buraxılışına təsir edən məhdudiyyətlərin müəyyən edilməsi;
- ❖ Yeni tətbiq edilən və təkmilləşdirilən siyasətlərin, prosedurların, texnikaların, texnologiyaların və infrastrukturun və ya inzibati dəyişikliklərin dəyərləndirilməsi;
- ❖ Ticarətin asanlaşdırılması performansının ölçülməsi üçün baza yaradılması;
- ❖ Ticarətin asanlaşdırılmasının təkmilləşdirilməsi üçün imkanların müəyyən edilməsi;
- ❖ Malların gəlişindən iqtisadiyyata buraxılmasına qədər sərf olunan arifmetik ortalamanın və/və ya median vaxtın ölçülməsi;
- ❖ Standartlaşdırılmış sistem əsasında, malların gəlişi və buraxılışı arasındakı hər bir müdaxilə hadisəsi üçün tələb olunan vaxtın dəqiqliklə qiymətləndirilməsi, yəni malların boşaldılması, saxlanması, bəyannamənin təqdim edilməsi, yoxlanması, digər dövlət orqanlarının müdaxilələri və malların buraxılması;
- ❖ Xüsusən də, gömrük və ya sərhəd prosedurları ilə bağlı siyasət və ya dəyişikliklərin (modernləşdirmə, islahatlar və ya ticarətin asanlaşdırılması proqramları kimi) tətbiqindən sonra, onların artan təsirlərini müşahidə etmək üçün əvvəlki tədqiqatlardan əldə edilmiş nəticələrin müqayisəsi;
- ❖ Ümumi sərhəd keçidlərindəki və ya ixracdan idxala (tranzit də daxil olmaqla) tədarük zəncirindəki darboğazları müəyyən etmək və zəruri koordinasiyalı düzəldici tədbirləri həyata keçirmək məqsədiylə, sərhədləri paylaşan qonşu ölkələrlə, eləcə də Gömrük/İqtisadi İttifaq daxilindəki digər ölkələrlə və ya başqa ölkələrlə TRS üzrə əməkdaşlıq etmək və həllər tətbiq etmək;
- ❖ Gömrük idarələrinin və ticarətdə maraqlı digər tərəflərin ticarətin asanlaşdırılması öhdəliyi ilə bağlı imicinin təşviq edilməsi;
- ❖ Gömrük və digər sərhəd tənzimləmə prosesləri ilə bağlı ÜGT-nin müasir standartlarını və alətlərini tətbiq etmək imkanlarının araşdırılması;
- ❖ Ümumdünya Ticarət Təşkilatının Ticarətin Asanlaşdırılması Sazişinin (Trade Facilitation Agreement – TFA) icrasının monitorinqi və qiymətləndirilməsi;
- ❖ Koordinasiyalı sərhəd idarəçiliyinin təşviqi;
- ❖ Bir Pəncərə mühitinin həyata keçirilməsi;
- ❖ Gömrük və digər dövlət orqanlarında xidmət standartı səviyyələri və ya müştəri müqavilələri ilə bağlı real siyasətlərin tətbiqi.

TRS-in həm milli hökumətlər üçün, həm də biznes subyektləri və istehlakçılar üçün ayrı-ayrı faydaları və üstünlükləri vardır. TRS milli hökumətlər üçün aşağıdakı faydaları təmin edir:

- ✓ Malların idxalı, ixracı və ya tranziti ilə bağlı yüklərin hərəkəti prosesində və ya yükün buraxılması və ya rəsmiləşdirilməsi ilə bağlı digər gömrük rejimlərində iştirak edən gömrük idarələrinin və digər dövlət orqanlarının səmərəliliyini artırır;
- ✓ Gömrük və digər maraqlı tərəflərə sinerjiləri araşdırmaq və yüklərin hərəkətində gecikmə və ya problemlərin mənbəyini yaradan milli narahatlıqların və ya maneələrin həllində birgə işləmək imkanı verir;
- ✓ İdxal, ixrac, tranzit və ya yükün buraxılışı və ya rəsmiləşdirilməsiylə bağlı digər gömrük rejimlərinə məruz qalan yüklərin beynəlxalq daşınmasını sürətləndirmək üçün daha yaxşı şərait yaradır, bununla da treyderlər üçün əməliyyat xərclərini azaldır və yerli və beynəlxalq investisiyaları təşviq edir;

✓ Qlobal bazarda ölkənin beynəlxalq rəqabət qabiliyyətinin yaxşılaşmasına gətirib çıxaran milli məhsuldarlığın genişləndirilməsi imkanlarını inkişaf etdirir;

✓ Transsərhəd qurumların səmərəliliyini və effektivliyini gücləndirərək böyümə və inkişaf yolu ilə hökumətin makroiqtisadi təşəbbüslərini dəstəkləyir.

TRS biznes ictimaiyyətinə və istehlakçılara aşağıdakı faydaları təqdim edir:

✓ Biznes ictimaiyyətinin bir ölkənin idxalı, ixracı və ya tranzit buraxılışı/rəsmiləşdirmə prosesi ilə əlaqədar yükün ticarət axını prosesini təkmilləşdirmək üçün gömrük və digər dövlət qurumları ilə əməkdaşlıq etməsini təmin edərək onlara daha yaxşı ticarət mühiti yaradır;

✓ Ticarət axınında bir və ya bir neçə dövlət qurumunun mümkün səmərəsizliyi nəticəsində biznes ictimaiyyətinin qarşılaşa biləcəyi maliyyə yükünü azaldır;

✓ Buraxılış və ya rəsmiləşdirmə prosesi ilə əlaqədar olaraq biznes ictimaiyyəti üçün şəffaflığı və proqnozlaşdırıla bilənliyi yaxşılaşdırır, beləliklə inventarın daha yaxşı idarə edilməsinə və vaxtında çatdırılmalara səbəb olur;

✓ Gəlişdən əvvəl emal, Bir Pəncərə və Səlahiyyətli İqtisadi Operator kimi ticarətin asanlaşdırılması tədbirlərinin və ya təşəbbüslərinin həyata keçirilməsindən qanuni bizneslərin faydalanması üçün əlverişli şərait yaradır;

✓ Özəl terminalların və anbar operatorlarının, ekspeditorların və başqalarının dinamik səmərəli mühitdə öz bizneslərini həyata keçirmələrinə və təkmilləşdirmələrinə imkan verir;

✓ İstehlakçılara rəqabətli və ədalətli qiymətlər təqdim edir, onlar səmərəsiz prosedurlar və ya mallar istehlakçılara çatmazdan əvvəl buraxılış və ya rəsmiləşdirmə zamanı mallara qiymət əlavə edə biləcək əsassız təcrübələr nəticəsində əlavə xərclər ödəməli olmurlar;

✓ İstehlakçı seçimini və xarici və ya yerli məhsullara əlçatanlığı artırır.

Dünyada müxtəlif regionlarda yerləşən müxtəlif ölkələr TRS konsepsiyasını fərqli formalarda həyata keçirir. Məsələn, Asiya-Sakit okean regionu ölkələrindən olan Koreya Respublikasının bu layihəni necə həyata keçirdiyi ilə qısaca və əyani şəkildə tanış olaq. Koreya ÜGT-nin TRS-in həyata keçirilməsi prinsiplərinə əməl etmiş və İnformasiya və Kommunikasiya Texnologiyalarının tətbiqi sahəsində özünün güclü təcrübəsindən istifadə edərək, TRS-in əsas elementlərini avtomatlaşdırmışdır. Mövcud Müştəri-yönümlü Logistika İnformasiya Sistemi (Client-oriented Logistics Information System - CLIS) artıq malların rəsmiləşdirmə vaxtı və logistik vəziyyəti haqqında etibarlı, sürətli və hərtərəfli məlumat verir. TRS-in mövcud kompüter sistemlərinə inteqrasiya edilməsi və avtomatik olaraq işə salınması digər hökumətlər üçün nümunəvi şəkildə bir modeldir.

Koreya Gömrük Xidməti (Korea Customs Service) 1997-ci ildə Elektron Məlumat Mübadiləsinə (Electronic Data Interchange – EDI) əsaslanan idxal yüklərinin idarə edilməsi sistemini və idxal rəsmiləşdirilməsi sistemini tamamlamış və sistemlərdə qeydə alınan emal müddətindən istifadə edərək, əsas logistika mərhələlərində müəyyən müddət ərzində Koreyaya gətirilən bütün idxal yüklərinin orta emal vaxtının hesablanması üçün üsul inkişaf etdirmişdir. 2006-cı ildə Koreya Gömrük Xidməti mövcud sistemi bütün proseslərin və əhatə dairəsinin orta emal vaxtı, standart kənarlaşma və fərdi logistika iştirakçılarının performansının real vaxt rejimli avtomatik TRS ölçülməsini və maraqlı tərəflər arasında məlumat mübadiləsini təmin edən müstəqil, veb-əsaslı TRS sistemi ilə yenilədi. Gömrük Xidməti, müştəri yönümlü funksiyasını və avtomatlaşdırılmış, müstəqil məlumat sistemini önə çıxararaq sistemi "Müştəri-yönümlü Logistika İnformasiya Sistemi" adlandırdı. Bu informasiya sistemi mövcud Elektron Məlumat Mübadiləsinə əsaslanan TRS ölçmə sistemlərindən onunla fərqlənir ki, birincisi, onun statistikası seçmə yox, tam siyahılara əsaslanır; ikincisi, bütün ölçmə sahəsi və prosesləri avtomatlaşdırılmış, müstəqil sistem tərəfindən həyata keçirilir; üçüncüsü, müştərilər internet vasitəsilə bütün müvafiq logistika məlumatlarını pulsuz əldə edə bilərlər. 2006-cı ildə Koreya hökuməti bu sistemi ən yaxşı innovasiya təcrübəsi kimi Prezident Mükafatı ilə mükafatlandırdı.

**Mənbə:** Matsumoto T. və Lee S., 2007; Zhang S., 2009

Azərbaycan Respublikasında da TRS-in tətbiqi gömrük sistemi üçün olduqca mühüm əhəmiyyət kəsb edən məsələlərdən biridir. Dövlət Gömrük Komitəsi ÜGT-nin "Malların buraxılış vaxtının ölçülməsi üzrə Təlimat"ında təsbit olunmuş metodologiya əsasında Azərbaycan Respublikasının bütün gömrük sərhəd buraxılış məntəqələrində "Sərhədkeçmə vaxtının ölçülməsi" (TRS) layihəsini tətbiq etmişdir. Layihənin məqsədi mal və nəqliyyat vasitələrinin sərhəddən keçidinə, buraxılışına və sərhəd keçidindən buraxılışına qədər keçən vaxtları müəyyən etmək, toplanan statistik məlumatların təhlili

əsasında ümumi biznes prosesdə mövcud problemləri aşkar etmək, bunun əsasında mal və nəqliyyat vasitələrinin sərhəd keçidinin və gömrük rəsmiləşdirilməsi prosesinin daha keyfiyyətli idarə olunmasını təmin etməkdir.

Nəticə etibarı ilə qeyd etmək lazımdır ki, TRS layihəsi ticarət və nəqliyyatın asanlaşdırılmasının davamlı təkmilləşdirilməsinə töhfə verə bilər. ÜGT tərəfindən hazırlanmış və tövsiyə edilən bu metodologiya əsaslı bir rəhbərlik də təmin edə bilər. TRS layihəsi milli ticarət və nəqliyyatın asanlaşdırılması strategiyasına və gömrük işinin modernləşdirilməsi proqramına daxil edilməlidir. Rəsmiləşdirmə vaxtını və xərclərini azaltmaq üçün müxtəlif islahat tədbirləri həyata keçirilməlidir. Bu, nəticə etibarı ilə ticarətin asanlaşdırılmasına və sərhədlərin rasional idarə olunmasına gətirib çıxaracaqdır.

**Ədəbiyyat**

1. Shujie Zhang, "TRS AS A MEASUREMENT OF TRADE FACILITATION: THE EXPERIENCE OF CUSTOMS IN THE ASIA PACIFIC REGION", 2009, p.10
2. https://www.wcoomd.org/-/media/wco/public/global/pdf/topics/facilitation/instruments-and-tools/tools/time-release-study/trs-guide_en.pdf?db=web
3. https://customs.gov.az/az/faydali/serhed-kecme-vaxtlari

# GÖMRÜK XİDMƏTİNİN İNİŞAFINDA ULU ÖNDƏRİN ROLU

**QULİYEVA GÜNEL**
Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyası
Beynəlxalq iqtisadi hüquq
*m.gunelguliyeva@gmail.com*
BAKI, AZƏRBAYCAN

**XÜLASƏ**

Tədqiqat işində Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra milli gömrük xidmətinin yaradılması, hüquqi və iqtisadi islahatlar nəticəsində beynəlxalq aləmdə nüfuzunun artması prosesi işıqlandırılır. 1991-1993-cü illərdəki qeyri-sabit vəziyyətin aradan qaldırılması mərhələləri, növbəti illərdə gömrük qanunvericiliyinin formalaşdırılması, gömrük sistemi və infrastrukturunun yenidən qurulması, gömrük xidmətinin maddi-texniki bazasının və kadr potensialının möhkəmləndirilməsi istiqamətində görülmüş işlər, avtomatlaşdırılmış idarəetmə sisteminə keçid təhlil edilmişdir. Məqalədə ulu öndər Heydər Əliyevin gömrük xidmətinin inkişafının əsas istiqamətləri və prinsiplərinin müəyyən edildiyi müxtəlif müşavirə və tədbirlərə göstərdiyi xüsusi diqqət və çıxışlarına yer verilmişdir. Gömrük işi sahəsində həyata keçirilən islahatlar kimi gömrük hüquqpozmalarının qarşısının alınmasını, gömrük nəzarətində mütərəqqi texnologiyaların tətbiqini, gömrük ödənişlərinin büdcəyə daxil olmasına nəzarətin və valyuta nəzarətinin gücləndirilməsini, gömrük sənədlərinin beynəlxalq tələblərə uyğunlaşdırılmasını, bütövlükdə gömrük xidmətinin və onun struktur bölmələrinin işinin səmərəliyinin artırılması ilə bağlı məsələlər qeyd edilmişdir. "Hüquqi dövlətin hüquqi bazası olmalıdır" prinsipini bütün sahələrdə rəhbər tutan ümumilli lider çox qısa müddətdə "Gömrük Məcəlləsi və Gömrük Tarifi Haqqında Qanun", "Gömrük Orqanlarında Xidmət Haqqında Əsasnamə" və respublikada gömrük işinin inkişafına təkan verən digər qanunların qüvvəyə minməsi ilə gömrük xidmətinin tərəqqisində əvəzedilməz addımlar atmışdır. Ümumilli lider Azərbaycanın beynəlxalq gömrük əməkdaşlığı sahəsində atdığı müsbət addımların nəticəsi olaraq gömrük sisteminin yenidən təşkili və təkmilləşdirilməsi üçün dünyanın qabaqcıl ölkələrinin gömrük təşkilatları ilə təcrübə mübadiləsinin aparılmasını, ikitərəfli və çoxtərəfli əlaqələrin qurulmasını, beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq şəraitində işləməyi iqtisadi tərəqqi üçün hədəf seçmişdir.

**AÇAR SÖZLƏR:** Gömrük xidməti, xarici siyasət, gömrük tarixi

**ABSTRACT**

In the research work, the process of establishing the national customs service after the Republic of Azerbaijan regained its independence, increasing its influence in the international world as a result of legal and economic reforms is highlighted. The stages of eliminating the unstable situation in the years 1991-1993, the formation of customs legislation, the reconstruction of the customs system and infrastructure, the work done in the direction of strengthening the material and technical base and personnel potential of the customs service, and the transition to an automated management system were analyzed. The article includes special attention and speeches of the great leader Heydar Aliyev to various meetings and events where the main directions and principles of the development of the customs service were determined. Issues related to the prevention of customs violations, the introduction of advanced technologies in customs control, the strengthening of control over the entry of customs payments into the budget and currency control, the adaptation of customs documents to international requirements, and the increase of the efficiency of the work of the customs service and its structural units as a whole were mentioned as reforms carried out in the field of customs work. . The general leader, who is guided by the principle "The legal state must have a legal base" in all fields, is irreplaceable in the progress of the customs service with the entry into force of the "Law on Customs Code and Customs Tariff", "Regulation on Service in Customs Authorities" and other laws that stimulate the development of customs work in the republic in a very short time has taken steps. As a result of the positive steps taken by Azerbaijan in the field of international customs cooperation, the national leader chose the exchange of experience with the customs organizations of leading countries of the world, the establishment of bilateral and multilateral relations, working in close cooperation with international organizations as a goal for economic progress in order to reorganize and improve the customs system.

**KEY WORDS**: Customs service, foreign policy, customs history

**GIRIŞ**

Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş, onun hərtərəfli diqqət və qayğısı nəticəsində dövlət müstəqilliyimizin əsas atributlarından birinə çevrilən gömrük xidmətinin inkişafı ilə ölkənin xarici siyasəti və beynəlxalq iqtisadi əlaqələri davamlı tərəqqi dövrünə keçmişdir. Ümumilli liderin müstəqilliyimizin bərpasından sonra ölkənin iqtisadi gücünün artırılması istiqamətində atdığı addımlar beynəlxalq səviyyədə iqtisadiyyatın dirçəlməsinə və dünya ölkələrinə inteqrasiyaya şərait yaratmışdır. Beynəlxalq iqtisadi inkişafın əsas yolu daxili gömrük siyasətinin dirçəlməsindən keçirdi, hansı ki, ümumilli lider Heydər Əliyev hakimiyyətinin ilk illərindən bütün diqqətini bu sahəyə yönəltmiş və gömrük xidmətinə münasibətdə davamlı yüksəlişə yol açmışdır. Nəticə etibarilə, gömrük siyasəti xarici əlaqələrdə öz əksini taparaq iqtisadiyyatın möhkəmlənməsinə və genişlənməsinə xidmət edir. Heydər Əliyevin yeritdiyi siyasətin nəticəsində Dövlət Gömrük Komitəsi son illər xarici ölkələrin gömrük orqanları ilə işgüzar əlaqələr yaratmaqla əməkdaşlığı genişləndirmiş, dünyanın qabaqcıl ölkələrinin təcrübələrindən bəhrələnməklə milli gömrük qanunvericiliyinin tələblərinə uyğun respublikamızın iqtisadi təhlükəsizliyinin, suverenliyinin və maraqlarının qorunmasında, Azərbaycan iqtisadiyyatının dünya təsərrüfatına inteqrasiyasında, iqtisadi islahatların dərinləşdirilməsində, dövlət büdcəsinin gəlirlər hissəsinin formalaşdırılmasında mühüm rol oynayır.

Tədqiqat işi 3 fəsildən ibarət olmaqla, gömrük münasibətlərinin bütün mərhələlərində ulu öndər Heydər Əliyevin misilsiz rolunun şərhinə istiqamətlənmişdir. İlk fəsil müstəqilliyimizin bərpasından sonrakı dövrlərdə, yəni Respublikada iqtisadiyyatın tamamilə çökdüyü bir zamanda gömrük xidmətinin inkişafı istiqamətində atılan ilkin addımları əhatə etməkdədir. İkinci fəsildə gömrük qanunvericiliyinin formalaşması, gömrük siyasəti ilə bağlı qəbul olunan qanunvericilik aktları və s, üçüncü fəsildə isə beynəlxalq gömrük əməkdaşlığı, gömrük xidmətinin beynəlxalq səviyyədə inkişafı təhlil edilmişdir.

**1. Müstəqilliyimizin bərpasından sonra gömrük xidmətinin inkişafı istiqamətində atılan ilkin addımlar**

Mürəkkəb tarixi şəraitdə xalqımızın yetirdiyi dahi şəxsiyyət Heydər Əliyev öz xalqının xilaskarı olmaqla yanaşı, dünyanın ən qüdrətli tarixi simaları sırasına yüksəlmiş tarixi şəxsiyyətdir. Heydər Əliyevin öz xalqına həsr etdiyi ömür yolu, ictimai-siyasi və zəngin dövlət quruculuğu fəaliyyəti,

həyata keçirdiyi uğurlu daxili islahatlar və xarici siyasət müstəqil Azərbaycanın beynəlxalq aləmdə nüfuzu və şöhrətinin surətlə artmasına səbəb oldu.

Xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən müəyyən edilən siyasətə uyğun olaraq formalaşmış və inkişaf edərək dövlət müstəqilliyinin əsas atributlarından birinə çevrilən, mükəmməl hüquqi bazaya malik olan Azərbaycan gömrük xidməti dünyanın ən təkmil gömrük sistemlərindən biri kimi fəaliyyət göstərməklə respublikanın iqtisadi təhlükəsizliyi və daxili bazarının qorunmasında, onun beynəlxalq iqtisadi və ticarət əlaqələrinin genişləndirilməsində müstəsna rol oynayır.

### 1.1. Milli gömrük xidmətinin yaradılması

XX əsrin sonlarında müstəqilliyimizi bərpa etdikdən sonra aparılan demokratik, hüquqi və iqtisadi islahatlar nəticəsində Azərbaycan dünya birliyində öz layiqli yerini tutdu və beynəlxalq aləmdə nüfuzunun artmasına səbəb oldu. Azərbaycanın iqtisadi təhlükəsizliyinin qorunmasının və daha da möhkəmləndirilməsinin əsas istiqamətlərindən birini yüksək səviyyəli gömrük xidmətinin yaradılmasında görən ümumilli lider Heydər Əliyev 1991-1993-cü illərdə ölkənin ictimai-siyasi həyatında hökm sürən qeyri-sabit vəziyyətə son qoymaq məqsədilə iqtisadi inkişafa və sosial-siyasi gərginliyin aradan qaldırılmasına xidmət edən genişmiqyaslı islahatlar həyata keçirdi (Heydərov K.F., 2004). Məhz dahi rəhbərin uzaqgörən siyasəti, gömrük sisteminin formalaşması üçün verdiyi dəyərli tövsiyələri və bu qurumun inkişafına yönələn iqtisadi siyasəti nəticəsində Azərbaycanda dünya standartlarına uyğun gömrük xidməti formalaşıb.

Ölkənin iqtisadi maraqlarının qorunması, xarici-iqtisadi fəaliyyət və idxal-ixrac əməliyyatlarına dövlət nəzarət sisteminin yaradılması, sərhədlərin iqtisadi təhlükəsizliyinin təmin edilməsi məqsədilə milli gömrük xidmətinin yaradılması və formalaşdırılması prosesinin nəticəsi kimi 1992-ci il yanvarın 30-da Dövlət Gömrük Komitəsi yaradıldı (A.Ş.Şəkərəliyev & Z.A.Şəkərəliyeva, 2015).

### 1.2. 1995-ci ildən sonrakı davamlı islahatlar

1995-ci ildən başlayaraq ölkədə iqtisadi tənəzzül dayandı və bu, sosial sahədə siyasətin konkret istiqamətlərinin müəyyənləşməsinə, islahatlar aparılmasına və sosial siyasətin geniş hüquqi bazasının yaranmasına təkan verdi. Heydər Əliyev 1995-ci il yanvarın 9-da respublikada gömrük xidmətinin yenidən qurulmasının, inkişafının əsas istiqamətləri və prinsiplərini müəyyən edildiyi müşavirədə Dövlət Gömrük Komitəsinin fəaliyyəti haqqında demişdir:

*"Gömrük orqanları Azərbaycan öz müstəqilliyini əldə edəndən sonra yaranmışdır. Onlar fəaliyyət göstərir, ancaq mən ümumən deyə bilərəm ki, müstəqillik dövründə əldə etdiyimiz nailiyyətlərlə yanaşı, böyük nöqsanlarımız, çatışmazlıqlar da var. Bunların başlıcası iqtisadiyyatın belə vəziyyətə düşməsi, xarici ölkələrlə iqtisadi əlaqələrin sağlam, düzgün əsasda qurulmamasıdır. Bu çatışmazlıqların mövcud olmasının əsas səbəblərindən biri gömrük orqanlarının işindəki nöqsanlardır".*

Ulu öndər 1995-ci ildən başlayaraq gömrük sistemi və infrastrukturunu yenidən qurmağa başladı, Komitə rəhbərliyi dəyişdirildi və gömrük qanunvericiliyinin yaradılması istiqamətində addımlar atıldı (Heydərov K.F., 2004). Heydər Əliyevin gömrük orqanının fəaliyyətini daim diqqətdə saxlaması və onun inkişafı üçün gördüyü tədbirlərin nəticəsi olaraq hazırda bu orqanın fəaliyyəti dünya səviyyəsində lazımi yeri tutmuşdur. Onun gördüyü əsas tədbirlərə kadr potensialını yeniləşdirməsi, gömrük nəzarəti zamanı şəffaflığın və xidməti nizam intizam qaydalarının gücləndirilməsi, struktur dəyişiklikləri, gömrük postlarında texniki resursların möhkəmləndirilməsi, yeni postların yaradılması, avtomatlaşdırılmış idarəetmə sisteminə keçid və digər tədbirləri aid edə bilərik (Quliyev, R. Ə., 2015).

1995-ci ilin yanvar ayında dahi rəhbərin sərəncamına əsasən, 1997-ci ildən 30 yanvar tarixinin gömrükçülərin peşə bayramı günü kimi qeyd edilməsi də bu orqanın fəaliyyətinə verdiyi çox yüksək qiymətin, diqqət və qayğının bariz təzahürü idi.

Ümummilli lider Heydər Əliyev gömrük münasibətlərinə toxunulan bütün müşavirə və tədbirlərdə orqanın inkişafına mane olan problemlərə, həll yolu üçün lazım olan nizam-intizam mühitinin formalaşmasına xüsusi diqqət ayırmışdır. Xüsusilə, 1997-ci il yanvarın 30-da Dövlət Gömrük Komitəsinin yaradılmasının 5-ci ildönümünə və gömrük əməkdaşlarının peşə bayramı gününə həsr edilmiş tədbirdə demişdir:

*"Hesab edirəm ki, sizin qarşınızda, Azərbaycan gömrük təşkilatının, Gömrük Komitəsinin qarşısında duran vəzifələr çox böyükdür və siz bu vəzifələri layiqincə yerinə yetirməyə özünüzü səfərbər etməlisiniz. Gömrük xidmətinin vəzifəsi təkcə iqtisadi xarakter daşımır, yəni, gömrük xidməti*

*Azərbaycanın dövlət müstəqilliyinin qorunması üçün lazım olan bir təşkilat kimi, eyni zamanda, başqa funksiyalar da daşıyır. Bu funksiyaların hamısını siz layiqincə yerinə yetirməlisiniz"*

Keçirilən müşavirələr və tədbirlərin nəticəsi olaraq ulu öndərin vurğuladığı bütün problemli hallar üçün həll yolları müəyyənləşdirildi, gömrük işinin iqtisadi göstəriciləri və maddi-texniki resursları, informasiya təminatı yaxşılaşdırıldı, gömrük qanunvericiliyinin formalaşdırılması, hüquqi-normativ sənədlərin yaradılması və gömrük işinə dair ilk milli dərsliklərin çap edilməsi, tədris-metodiki vəsaitlərin hazırlanması həyata keçirildi, ölkə gömrüyünün beynəlxalq təşkilatlarla əlaqəsinin daha da möhkəmləndirilməsi və təcrübə mübadiləsi aparılması sahəsində səylər geniş xarakter aldı.

**2. Ulu öndərin rəhbərliyi ilə gömrük qanunvericiliyinin formalaşdırılması**

Gömrük işi sahəsində həyata keçirilən islahatlar - gömrük hüquqpozmalarının qarşısının alınmasını, gömrük nəzarətində mütərəqqi texnologiyaların tətbiqini, gömrük ödənişlərinin büdcəyə daxil olmasına nəzarətin və valyuta nəzarətinin gücləndirilməsini, gömrük sənədlərinin beynəlxalq tələblərə uyğunlaşdırılmasını, bütövlükdə gömrük xidmətinin və onun struktur bölmələrinin işinin səmərəliyinin müntəzəm olaraq təhlil edilməsini və digər məsələləri nəzərdə tuturdu.

Gömrük xidmətinin inkişafı posesində ulu öndərin rəhbərliyi ilə atılan ən mühüm addımlardan biri Azərbaycan Respublikasının 10 iyun 1997-ci il tarixli qanunu ilə gömrük işinin hüquqi əsaslarının yaradılması sahəsində mühüm rol oynayan Gömrük Məcəlləsinin əsas hüquqi baza kimi istifadə olunması olmuşdur, hansı ki burada dövlətin daxili və xarici siyasətinin tərkib hissəsi olan vahid gömrük siyasətinin məqsədləri ifadə olunmuşdur (K.F.Heydərov, A.Ə.Əliyev, C.Q.Nuriyev, S.M.Mehdiyev, 2006). Məhz bu Məcəllənin müddəalarına əsasən, gömrük orqanları hüquq mühafizə orqanı status almışdır. Azərbaycan Respublikası Gömrük Məcəlləsinin qəbul edilməsi ilə, gömrük orqanı vəzifəli şəxslərinin hüquqları, onların qarşısına qoyulan əsas vəzifələr, gömrük işinin prinsipləri müəyyən edildi.

Azərbaycan Respublikasında xarici ticarətin tənzimlənməsinə dair imzalanmış Prezident fərmanları, Nazirlər Kabinetinin müvafiq qərar və sərəncamları, həmçinin digər hüquqi-normativ sənədlər idxal-ixrac əməliyyatlarına gömrük nəzarətinin təkmilləşdirilməsi sahəsində mühüm rol oynayır. Həmçinin "Gömrük tarifi haqqında" qanunun qüvvəyə minməsi gömrük işinin hüquqi bazasını daha da möhkəmləndirdi. Bu qanunun qüvvəyə minməsi ilə həm gömrük orqanlarına valyuta nəzarətini həyata keçirmək hüququ verdi, həm də həm də gömrük rüsumlarının düzgün hesablanması, yığımların, vergilərin vaxtında və düzgün formada yığılaraq dövlət büdcəsinə köçürülməsi tələbi qoyuldu (Quliyev, R. Ə., 2015) Bu Qanun Azərbaycan Respublikasında gömrük tarifinin formalaşdırılması və tətbiqi, həmçinin Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilən mallardan gömrük rüsumlarının tutulması qaydalarını müəyyən edir. Gömrük tarifinin əsas məqsədləri, rüsumlar və onların dərəcələrinin müəyyən edilməsi qaydası, rüsum dərəcələrinin növləri, malın gömrük dəyərinin müəyyən edilməsi və bəyan edilməsi, həm bəyannaməçinin, həm də gömrük orqanlarının hüquq və vəzifələri, gömrük rüsumları üzrə güzəştlər, gömrük rüsumundan azadetmə halları müəyyən edilmişdir.

Gömrük qanunvericiliyinin inkişafında Azərbaycan Prezidentinin 27 oktyabr 1998-ci il tarixli fərmanı ilə təsdiq edilmiş Dövlət Gömrük Komitəsi haqqında Əsasnamə də mühüm yer tutur (Quliyev, R., & Quluzadə, A., 2023). Bu Əsasnamədə gömrük işi sahəsində dövlət siyasətini və tənzimlənməsini həyata keçirən, hüquq mühafizə orqanı statusu olan Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin fəaliyyət istiqamətləri, hüquq və vəzifələri, Komitənin fəaliyyətinin təşkili məsələləri və ən əsası, Dövlət Gömrük Komitəsinin strukturu öz əksini tapmışdır.

Ölkəmizin gömrük təşkilatının işini dünya standartlarına yaxınlaşdıran mühüm sənədlərdən biri də Azərbaycan Respublikasının 7 dekabr 1999-cu il tarixli qanunu ilə təsdiq olunmuş "Gömrük orqanlarında xidmət haqqında Əsasnamə" oldu (K.F.Heydərov, A.Ə.Əliyev, C.Q.Nuriyev, S.M.Mehdiyev, 2006). Azərbaycan Respublikasının gömrük orqanlarında və təşkilatlarında xidmətin qaydalarını və gömrük orqanlarının vəzifəli şəxslərinin hüquqi vəziyyətinin əsaslarını müəyyən edən bu Əsasnamədə, gömrük orqanlarında xidmətə qəbul, xüsusi rütbələrin verilmə qaydası, xidməti intizam qaydaları, gömrük orqanı əməkdaşlarının attestasiyası və fəaliyyətin qiymətləndirilməsi, xidmətə xitam verilməsi və xidmətə bərpa üçün əsaslar əhatə olunmuşdur.

**3. Gömrük siyasətinin inkişafında beynəlxalq gömrük əməkdaşlığı**

Sözügedən dövrdə Dövlət Gömrük Komitəsinin beynəlxalq əlaqələri də genişlənmiş, Azərbaycanın beynəlxalq iqtisadi inteqrasiyanın inkişaf etdirilməsində və möhkəmləndirilməsində

rolu artmışdır. Ulu öndər beynəlxalq iqtisadi sistemə inteqrasiyanı, maddi-texniki bazasının möhkəmləndirilməsini, bütün istiqamətlərdə gömrük işinin beynəlxalq standartlara tam uyğun aparılmasını və bütövlükdə gömrük sisteminin ölkənin sosial-iqtisadi inkişafındakı rolunun daha da artırılmasmı zəruri hesab edir və bu istiqamətdə addımlar atırdı (Quliyev, R., & Quluzadə, A., 2023). Bu addımlara əsas olaraq beynəlxalq təşkilatlarla əməkdaşlıq əlaqələrinin qurulmasını qeyd edə bilərik. Bu dövrdən etibarən Ümumdünya Gömrük Təşkilatı, MDB iştirakçı dövlətlərin Gömrük Xidməti Rəhbərləri şurası, İqtisadi Əməkdaşlıq Təşkilatı Gömrük Xidməti Rəhbərləri Şurası, Asiya İnkişaf Bankı tərəfindən maliyyələşən Gömrük Əməkdaşlıq Komitəsi, Avropa Komissiyasının TASSİS proqramı çərçivəsində Avropa Gömrüyü, BMT İnkişaf Proqramı və s. nüfuzlu beynəlxalq təşkilatlarla əməkdaşlığın genişlənirilməsi istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilməyə başlamışdır. İkitərəfli və çoxtərəfli beynəlxalq sazişlərə üstünlük verilməsi gömrük sisteminin təkmilləşdirilməsində öz bəhrəsini vermişdir (Heydərov K.F., 2004). Türkiyə, İran İslam Respublikası, Gürcüstan, Özbəkistan, Qazaxıstan, Livan, Bolqarıstan respublikaları və Ukrayna gömrük orqanları ilə gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında sazişlər imzalanmışdır (A.Ş.Şəkərəliyev, Z.A.Şəkərəliyeva, 2015).

Məlum olduğu kimi, gömrük xidmətinin fəaliyyətinin vacib istiqamətlərindən birini narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə təşkil edir. Ölkə ərazisindən narkotiklərin tranzit daşınmalarının qarşısına sədd çəkmək məqsədilə xüsusi tədbirlər görülür, o cümlədən inkişaf etmiş ölkələrin gömrük təcrübəsi öyrənilir, ixtisaslaşdırılmış kadrların hazırlanmasına diqqət artırılır, müasir avadanlıqlar quraşdırılır, xüsusi kinoloji xidmətin imkanlarından istifadə olunur (Quliyev, R. Ə., 2015)

**NƏTICƏ**

Azərbaycan Respublikasının gömrük işinə dair qanunvericiliyinin təkmilləşdirilməsi məqsədi ilə 1995-ci ildə "Gömrük tarifi haqqında", 1997-ci ildə "Azərbaycan Respublikasının Gömrük Məcəlləsi" və 1998-ci ildə "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi haqqında" Əsasnamə, 1999-cu ildə "Gömrük orqanlarında xidmət haqqında" Əsasnamə, həmçinin 2001-ci ildə gömrük orqanlarının şərəf və şöhrət rəmzi olan "Azərbaycan Respublikası gömrük orqanlarının bayrağı haqqında" və "Azərbaycan Respublikası gömrük orqanlarının tanınma nişanı haqqında" qanunlar, həmçinin müxtəlif qərarlar, təlimatlar, əsasnamələr, qaydalar, konsepsiyalar, metodiki göstərişlər və s. hazırlanmış, təsdiq edilmişdir.

Heydər Əliyev həqiqi gömrük işini təşkil etmək üçün iki əsas şərt lazım olduğunu vurğulayırdı. Birincisi, gömrük işçisinin bilikli, peşəsini yaxşı mənimsəmiş olması, ikincisi isə, bilik və təcrübə ilə yanaşı maddi texniki bazası, müasir ləvazimatlarının olmağı (K.F.Heydərov, A.Ə.Əliyev, C.Q.Nuriyev, S.M.Mehdiyev, 2006). Heydər Əliyevin bu sözləri Dövlət Gömrük Komitəsi rəhbərliyi tərəfindən özlərinin gələcək fəaliyyət proqramı kimi qəbul edilir və gömrük orqanlarının maddi texniki bazasını genişləndirməklə yanaşı, yüksək səviyyəli peşəkar gömrük işçilərinin hazırlanması üçün də müvafiq işlər görülür.

Beləliklə, sadalanan faktlar Heydər Əliyevin rəhbərlik etdiyi dövrdə gömrük xidmətinin əldə etdiyi möhtəşəm uğurların sadəcə bir qismini ifadə edir. Azərbaycan gömrüyü hər gün daha da inkişaf edir və gələcəyə doğru inamla, qətiyyətlə addımlayır.

**ƏDƏBIYYAT SIYAHISI**

1. A.Ş.Şəkərəliyev, Z.A.Şəkərəliyeva. (2015). Gömrük işinin təşkili və idarə edilməsi, Dərs vəsaiti. Bakı: "İqtisad Universiteti" Nəşriyyatı – 2015. - 168 səh.

2. Heydərov K.F. (2004). Gömrük işinin əsasları, Bakı, Qanun, 2004.

3. K.F.Heydərov, A.Ə.Əliyev, C.Q.Nuriyev, S.M.Mehdiyev. (2006). "Gömrük rəsmiləşdirilməsi" Ali məktəblər üçün dərslik. Azərbaycan dilində. Bakı, Qanun, 2006, 324 səh.

4. Quliyev, R. Ə. (2015). Azərbaycan dövlətçiliyi tarixində gömrük işi. Azərbaycan Respublikasında gömrük sisteminin inkişafı (1991-2014-cü illər). (3 Cilddə), (Cild 3). (R. Quliyev). Turxan NPB.

5. Quliyev, R., & Quluzadə, A. (2023). Heydər Əliyev və Azərbaycan Respublikasının Milli Gömrük Siyasətinin Formalaşması (1993-2003-cü illər). Akademik Tarih Ve Düşünce Dergisi, 10(1), 144-164.

# AZƏRBAYCANIN BEYNƏLXALQ TİCARƏT VƏ TRANZİTLƏ ƏLAQƏDAR SAZİŞ VƏ KONVENSİYALARA TƏRƏFDAR ÇIXMASINI ŞƏRTLƏNDİRƏN AMİLLƏR

***Qədimov Hüseyn Musa oğlu***
*Dövlət gömrük komitəsinin akademiyasının 2 -ci kurs magistratura tələbəsi*
*qadimovhuseyn@gmail.com*

**XÜLASƏ**

Azərbaycan beynəlxalq ticarət və tranzit sahəsində qanunvericilik bazasını fəal şəkildə inkişaf etdirir. Buraya ölkəni beynəlxalq müqavilə və konvensiyalara riayət etməyə məcbur edən müvafiq qanunların, normativ aktların və qaydaların hazırlanması və qəbulu daxildir. Azərbaycan Respublikası bir çox beynəlxalq təşkilatların, məsələn, Ümumdünya Gömrük Təşkilatı, Ümumdünya Ticarət Təşkilatı və digərlərinin üzvüdür. Bu təşkilatlarda iştirak Azərbaycana yeni sazişlər və konvensiyalar haqqında aktual məlumat əldə etmək imkanı verir, həmçinin ölkənin onlara səmərəli şəkildə əməl etməsinə kömək edir. Azərbaycan beynəlxalq ticarət və tranzit sahəsində digər ölkələrlə əməkdaşlığı fəal şəkildə inkişaf etdirir. Ölkələr arasında qarşılıqlı dəstək və əməkdaşlıq saziş və konvensiyaların yerinə yetirilməsinə, ticarət və tranzit şəraitinin yaxşılaşdırılmasına kömək edir. Azərbaycan səmərəli ticarət və tranziti təmin etmək üçün nəqliyyat və logistika infrastrukturunu fəal şəkildə inkişaf etdirir. Limanların, hava limanlarının, avtomobil və dəmir yollarının inkişafı ölkəyə beynəlxalq ticarət və tranzitlə bağlı saziş və konvensiyalara əməl etməyə imkan verir.

***Açar sözlər:*** beynəlxalq ticarət, konvensiya, saziş, tranzit, xarici iqtisadi əlaqələr

## ФАКТОРЫ, ОПРЕДЕЛЯЮЩИЕ СОБЛЮДЕНИЕ АЗЕРБАЙДЖАНОМ СОГЛАШЕНИЙ И КОНВЕНЦИЙ, КАСАЮЩИХСЯ МЕЖДУНАРОДНОЙ ТОРГОВЛИ И ТРАНЗИТА

**АННОТАЦИЯ**

Азербайджан активно развивает свою законодательную базу в области международной торговли и транзита. Это включает в себя разработку и принятие соответствующих законов, постановлений и регулирующих актов, которые обязывают страну соблюдать международные соглашения и конвенции. Азербайджанская Республика является членом многих международных организаций, таких как Всемирная таможенная организация, Всемирная торговая организация и другие. Участие в этих организациях обеспечивает Азербайджану доступ к актуальной информации о новых соглашениях и конвенциях, а также помогает стране эффективно осуществлять их соблюдение. Азербайджан активно развивает сотрудничество с другими странами в области международной торговли и транзита. Взаимная поддержка и сотрудничество между странами помогают обеспечить соблюдение соглашений и конвенций, а также улучшить условия торговли и транзита. Азербайджан активно развивает свою транспортную и логистическую инфраструктуру для обеспечения эффективной торговли и транзита. Развитие портов, аэропортов, дорог и железных дорог позволяет стране соблюдать соглашения и конвенции, связанные с международной торговлей и транзитом.

***Ключевые слова:*** международная торговля, конвенция, соглашение, транзит, внешнеэкономические связи

## FACTORS DETERMINING AZERBAIJAN'S COMPLIANCE WITH AGREEMENTS AND CONVENTIONS RELATING TO INTERNATIONAL TRADE AND TRANSIT

**SUMMARY**

Azerbaijan is actively developing its legislative framework in the field of international trade and transit. This includes the development and adoption of relevant laws, regulations and regulations that bind the country to comply with international agreements and conventions. The Republic of Azerbaijan is a member of many international organizations, such as the World Customs Organization, the World Trade Organization and others. Participation in these organizations provides Azerbaijan with access to up-to-date information on new agreements and conventions, and also helps the country effectively comply with them. Azerbaijan is actively developing cooperation with other countries in the field of international trade and transit. Mutual support and cooperation between countries help

ensure compliance with agreements and conventions and improve trade and transit conditions. Azerbaijan is actively developing its transport and logistics infrastructure to ensure efficient trade and transit. The development of ports, airports, roads and railways allows the country to comply with agreements and conventions related to international trade and transit.

***Key words:*** international trade, convention, agreement, transit, foreign economic relations

Siyasi müstəqillik əldə edildikdən sonra Azərbaycan iqtisadiyyatının inkişafı üçün prioritet vəzifələrdən biri də xarici iqtisadi əlaqələrin lazımi istiqamətlərdə qurulması olub. Hazırda Azərbaycanın 84 ölkə ilə qarşılıqlı xarici iqtisadi əlaqələri var. Ölkənin iqtisadi potensialı, xammal və mineral ehtiyatları, təbii şəraiti və əlverişli iqtisadi və coğrafi mövqeyi əməkdaşlığın artmasına kömək edir. Xarici dövlətlərlə əməkdaşlıq Azərbaycana milli iqtisadiyyatın çoxşaxəli inkişafı üçün üstünlüklər verir. Məhz buna görə də xarici dövlətlərlə qarşılıqlı iqtisadi əlaqələrin qurulması və onların inkişafı Azərbaycanın milli iqtisadiyyatının formalaşmasında mühüm amildir [4]. Azərbaycan Respublikasının xarici iqtisadi əlaqələrinin əsas xarakteristikası onun beynəlxalq, regional və yerli xarakterli iqtisadi təşkilatlara daxil olması, habelə ölkənin ictimai həyatının bütün sahələri ilə bu təşkilatlara inteqrasiyasıdır.

Azərbaycanın beynəlxalq ticarət və tranzitlə bağlı saziş və konvensiyalara sadiqliyi bir sıra amillərlə bağlıdır:

1. Coğrafi mövqe: Azərbaycan Avropa ilə Asiya, eləcə də Rusiya ilə İran arasında strateji tranzit dəhlizidir. Bu geosiyasi mövqe nəqliyyat kommunikasiyalarının təhlükəsizliyini və səmərəliliyini təmin etmək üçün ölkəni beynəlxalq saziş və konvensiyaların inkişafı və onlara riayət etməkdə maraqlı edir.

2. İqtisadi artım və İnkişaf: Azərbaycan iqtisadi inkişafa və iqtisadiyyatının müxtəlifliyinə can atır. Beynəlxalq Ticarət və tranzitdə iştirak xarici investisiyaların cəlb edilməsində, ixrac bazarlarının genişləndirilməsində və iş yerlərinin açılmasında əsas amildir. Müqavilələrə və konvensiyalara uyğunluq xarici ticarət fəaliyyətinin proqnozlaşdırıla bilənliyini və sabitliyini təmin edir və xarici tərəfdaşların etibarını artırır.

3. Beynəlxalq təşkilatlara inteqrasiya: Azərbaycan Ümumdünya Ticarət Təşkilatının (ÜTT), ümumi preferensiya sisteminin (GSP) və digər beynəlxalq təşkilatların üzvüdür. Bu təşkilatlara daxil olmaq Azərbaycanı beynəlxalq qaydalara və standartlara, o cümlədən ticarət və tranzitlə bağlı saziş və konvensiyalara riayət etməyə məcbur edir.

4. Hökumət siyasəti və Qanunvericilik: Azərbaycan hökuməti beynəlxalq ticarət sistemlərinə inteqrasiyanı və nəqliyyat magistrallarının inkişafını fəal şəkildə dəstəkləyir. Saziş və konvensiyaların düzgün həyata keçirilməsini təmin etmək üçün müvafiq milli qanunvericilik və daxili qaydalar hazırlayır və qəbul edir.

5. Beynəlxalq qurumların rolu: Azərbaycanın Şərq Tərəfdaşlığı üzrə Avropa tərəfdaşlığı, Avropada Təhlükəsizlik və əməkdaşlıq Təşkilatı (ATƏT) və s.kimi müxtəlif beynəlxalq layihələrdə iştirakı onun beynəlxalq saziş və konvensiyalara sadiqliyinə kömək edir. Beynəlxalq tərəfdaşlarla qarşılıqlı əlaqə regional və Beynəlxalq Ticarət və tranzit sisteminin inkişafına və güclənməsinə kömək edir.

Ümumiyyətlə, Azərbaycanın beynəlxalq ticarət və tranzitlə bağlı saziş və konvensiyalara sadiqliyi onun iqtisadi maraqlarından, coğrafi mövqeyindən, beynəlxalq təşkilatlara üzvlüyündən və beynəlxalq qurumların rolundan, hökumət siyasətindən və qanunvericiliyindən irəli gəlir [3].

Gömrük işçilərimizin fikrincə, gömrük siyasətinin formalaşması prosesinə təsir edən amillər aşağıdakı xüsusiyyətlərə görə üç əsas qrupa birləşdirilə bilər. Birinci qrup ictimai-siyasi xarakterli amillərdir. Suverenlik əldə edildikdən dərhal sonra respublikada müxtəlif qüvvələrin hakimiyyət uğrunda mübarizəsi kəskinləşdi. Qəribədir ki, gömrük xidmətinin formalaşmasının başlanğıcı ölkənin siyasi həyatında ağır dövrə və Ermənistan tərəfindən Azərbaycan yaşayış məntəqələrinin işğalının başlanmasına təsadüf edib [5]. Mövcud vəziyyətdən istifadə edərək müxtəlif qruplar öz təsirlərini əsas sahələrdə möhkəmləndirə bildilər. Çox vaxt bu qrupların maraqları bu bölgədəki geosiyasi planlarını təmin etmək istəyən xarici dövlətlərin maraqları ilə üst-üstə düşürdü. Azadlıq eyforiyasında sərhədlər açıldı, bu da naməlum şəxslərin və yüklərin maneəsiz hərəkətinə kömək etdi. Qaçaqmalçılar da özlərini sərbəst hiss etdilər. İkinci qrup iqtisadi və hüquqi xarakterli amillərdir. Ənənəvi kooperativ və birbaşa iqtisadi əlaqələrin kəsilməsi, respublikalararası ödənişlər sisteminin məhv edilməsi və onilliklər ərzində inkişaf etmiş satış bazarlarının itirilməsi ölkə iqtisadiyyatının iflic olmasına səbəb

oldu. Bu vəziyyətdə tələbatın ödənilməsi daha çox istehsal və istehlak məqsədləri üçün əsas məhsulların idxalı ilə mümkün olmuşdur. Mövcud normativ hüquqi baza yeni iqtisadi münasibətlərin tələblərinə cavab vermədi. Köhnəlmiş ictimai-siyasi sistemin qanunvericiliyi yeni problemlərin öhdəsindən gələ bilmədi. Gömrük vergisinin subyektlərində və obyektlərində anlaşılmazlıq, aydın dövlət siyasətinin olmaması xarici iqtisadi fəaliyyətin tənzimlənməsində gömrük orqanlarının rolunu ləğv etdi. Üçüncü qrup peşəkar və etnik xarakterli amillərdir. Gömrük Komitəsinin yaradılması zamanı müvafiq təcrübəyə və ixtisasa malik gömrük işçilərinin sayı əhəmiyyətsiz, təxminən yüz nəfər idi ki, bu da indiki sayı ilə təxminən bir yarım min nəfərlə müqayisə olunmaz idi. Əvvəlcə iqtisadiyyatın müxtəlif sahələrinin mütəxəssisləri işə götürüldü və qismən aşağı bilik və ixtisas səviyyəsinə sahib oldular. "Asan qazanc" məqsədi ilə gömrük işçiləri və insanlar sıralarına sıxılmağı bacardılar. Qanunvericilikdəki ağ ləkələr və zəif dövlət idarəçiliyi gömrük daxilolmalarının mütləq rəqəmlərinə təsir etdi. Şübhəsiz ki, gömrük işində insan amili əsas olaraq qalır. Milli lider H.Əliyev gömrük işində yaranmış vəziyyəti səciyyələndirərək belə bir fikir söyləyib: "təəssüf ki, gömrük işçiləri tərəfindən xidməti vəziyyətdən eqoist məqsədlər üçün istifadə edilməsi, şəxsi maraqların təqib edilməsi halları müşahidə olunur. Bununla barışmaz mübarizə aparılmalıdır. Mən hesab edirəm ki, əgər bütün gömrük orqanlarında iş qanunun, bütün hüquqların, Nizamnamənin yüksək tələblərinə cavab versəydi, gömrük xidmətinin gəlirləri daha yüksək olardı, respublika iqtisadiyyatına ziyan dəyməzdi". Keçid dövrü amillərinin təsiri Azərbaycan gömrük xidmətinin formalaşması prosesinə mənfi təsir göstərmişdir. Gömrük xidmətinin inkişafı üçün hazırlanmış və həyata keçirilən proqram bu mənfi təsirlərin aradan qaldırılmasına yönəldilmişdir [2]. Respublika iqtisadiyyatının inkişaf xüsusiyyətlərinə əsaslanaraq Azərbaycan Dövlət Gömrük Komitəsi tərəfindən müvafiq strategiyanın hazırlanması zamanı aşağıdakı əsas vəzifələr müəyyən edilmişdir::

- malların təhvil verilmə üsulundan asılı olmayaraq tam gömrük rəsmiləşdirilməsinin təmin edilməsi;
- gömrük prosedurlarının sadələşdirilməsi və qeydiyyat vaxtının azaldılması;
- yük və yükgöndərənlər haqqında ilkin məlumatların alınması;
- gömrük qanunvericiliyinin pozulmasının qarşısının alınması;
- digər hüquq-mühafizə orqanları ilə birlikdə narkotik maddələrin idxalının qarşısının alınması, onların qanunsuz dövriyyəsinin respublikanın gömrük ərazisi vasitəsilə tranzitinə yol verilməməsi;
- valyuta nəzarəti;
- gömrük sərhədinin tam təşkili və təchiz edilməsi, gömrük sərhədindən malların hərəkətinin uçotunun avtomatlaşdırılmasının təkmilləşdirilməsi üzrə işlərin başa çatdırılması;
- yoxlama işinin təkmilləşdirilməsi, müxtəlif yoxlama formalarından istifadə, ayrı-ayrı identifikasiya və sənədli yoxlama texnologiyasının tətbiqi;
- gömrük sənədlərinin beynəlxalq tələblərə uyğun daha da birləşdirilməsi; - boru kəmərləri və elektrik xətləri ilə daşınan mallara faktiki nəzarətin təşkili;
- tarif olmayan tənzimləmə tədbirlərinə riayət olunmasına nəzarət texnologiyasının təkmilləşdirilməsi;
- əqli mülkiyyət obyektlərinin hərəkətinə nəzarət üçün təşkilati və hüquqi ilkin şərtlərin formalaşdırılması.

Keçmiş SSRİ respublikalarının vahid milli iqtisadi kompleksə inteqrasiya olunmuş planlı iqtisadiyyatı, iqtisadi dövlətləri səfərbər etmək və manevr etmək bacarığı sayəsində müəssisələr və ev təsərrüfatları arasında tələb olunan istənilən məhsul çeşidini istehsal etməyə imkan verdi və geniş ərazi və əmək ehtiyatlarının qeyri-bərabər yerləşdirilməsi məhsulların geniş iqtisadi məkanda satışında əhəmiyyətli üstünlüklər verdi. Hal-hazırda bir çox mərkəzi və Şərqi Avropa ölkəsinin AEC-in genişləndirilməsi imkanlarından, habelə Avropa İttifaqı ilə ABŞ arasında transatlantik azad ticarət zonasının yaradılması perspektivlərindən istifadə etməyə çalışdıqları şey həm keçmiş Sovet İttifaqı ərazisində, həm də sosialist dövlətlərin keçmiş Birliyi çərçivəsində mövcud idi.digər anti-bazar (planlı, komanda-İnzibati prinsiplər. Fikrimizcə, siyasi və iqtisadi islahatların vaxtında qətiyyətli (lakin elmi cəhətdən əsaslandırılmış) aparılması, Mərkəzin bir çox (çox vaxt uydurma) səlahiyyətlərinin ləğvi, müttəfiq respublikalara suveren hüquqların tanınması və verilməsi bütün keçmiş respublikaların onilliklər ərzində yaradılan iqtisadi potensialını qoruyub saxlaya bilər və son illərdə baş verən sarsıntıların qarşısını ala bilər [1].

**ƏDƏBİYYAT**

1. Зубенко В. В., Игнатова О. В., Орлова Н. Л. Мировая экономика и международные экономические отношения. Учебник и практикум. — М.: Юрайт. 2017. 410 с.
2. Тодоров А.А. Международный транзитный потенциал северного морского пути: экономический и правовой аспекты // Проблемы национальной стратегии. 2017. № 3 (42). С. 149-171.
3. Цыганков П.А. Социологические термины и подходы в анализе международных отношений // Вестник Московского университета. Серия 12: Политические науки. 2016. Изд-во Моск. ун-та (М.), № 4, с. 28-37
4. Чеботарев Н. Ф. Мировая экономика и международные экономические отношения. Учебник. — М.: Дашков и Ко. 2020. 350 с.
5. Шишкин, А.В. Международная торговля: вчера, сегодня, завтра / А.В. Шишкин. - М.: Русайнс, 2017. - 480 с.

# BEYNƏLXALQ HÜQUQU HEÇƏ SAYAN MİLLƏTLƏ KEÇMİŞDƏN BU GÜNƏ QARŞI-QARŞIYA

**Əminə Əhmədova**
Dövlət Gömrük Komitəsinin Akademiyası
Hüquqşünaslıq
emine.ehmedova.05@gmail.com
Azərbaycan, Bakı

**Xülasə**

Məqalədə ermənilər tərəfindən yalnız bu gün deyil, tarix boyu beynəlxalq hüququn prinsiplərinin kobudcasına pozulduğu barədə məlumat verilir . Bunun ən son bariz nümunələrindən biri kimi isə İkinci Qarabağ müharibəsi göstərilir. Belə ki, bildirilir ki, ermənilərin mülki əhalini öz hədəfinə çevirməsi, azərbaycanlı əsirlərə qarşı törətdikləri dəhşətverici işgəncələr, cəsədlərin təhqiramiz hərəkətlərə məruz qalması, azərbaycanlı hərbçilərin qanunsuz həbslərə məhkum edilməsi, işğaldan azad edilmiş ərazilərə milyonlarla mina basdırılması, 10 noyabr Bəyanatından sonra atəşkəsin dəfələrlə pozulması və s. kimi bütün hallar ermənilərin necə vandal millət olduğunu dünya ictimaiyyətinə bir daha tanıdır. Beynəlxalq humanitar hüququn kobud şəkildə pozulması ilə qətlə yetirilən mülki əhali içərisində azyaşlıların da olması vəhşiliyin ilk dəfə yox, dəfələrlə törədildiyinin, dünyanın isə ilk dəfə yox dəfələrlə susduğunun bir daha göstəricisidir. Əlverişsiz hava şəraitində məhdud görmə səbəbindən itkin düşən iki azərbaycan hərbiçisinin( Bəbirov Aqşin Qabil oğlu və Axundov Hüseyn Əhliman oğlu) döyülərək videoya çəkilib sosial şəbəkələrdə yayılması və təqsirli bilinərək Ermənistan məhkəməsi tərəfindən qanunsuz olaraq həbs olunması bu vəhşi və qanunsuz əməllərin yalnız müharibə zamanı deyil, muharibədən sonra da davam etdirildiyinin sübutudur. Hətta bugünkü günə qədər işğaldan azad olunmuş ərazilərdə həyata keçirilən bərpa-quruculuq işləri çərçivəsində aparılan qazıntı işləri zamanı basdırılmış vəziyyətdə insan qalıqlarının aşkar edilməsi yalnız hüquqi mövqedən deyil, insanlıq cəhətdən də qan dondurur. “Bəs, bu vəhşi millət tərəfindən beynəlxalq hüququn hansı prinsipləri pozulmuşdur?”, “Bununla bağlı ən son hesabat hansı yerdədir?” Bu tip sualların cavabını isə bu məqaləni oxumaqla əldə edəcəksiniz.

**Açar sözlər:** insan hüquqları, toxunulmazlıq prinsipi, şərait prinsipi, fərdlər prinsipi, müdafiə prinsipi

**Abstract**

The article reports that Armenians have grossly violated the principles of international law not only today, but throughout history. The Second Karabakh War is one of the most recent clear examples of this. Thus, it is reported that the Armenians turned the civilian population into their target, the terrible tortures they committed against the Azerbaijani prisoners, the bodies were subjected to abusive actions, the Azerbaijani soldiers were sentenced to illegal imprisonment, millions of landmines were buried in the liberated territories, the ceasefire was repeatedly violated after the

November 10 Declaration, etc. . All such cases once again show the world community how Armenians are a vandal nation. The presence of minors among the civilian population killed by gross violations of international humanitarian law is another indication that the brutality has been committed not for the first time, but many times, and the world has been silent many times, not for the first time. Two Azerbaijani soldiers (Babirov Agshin Qabil oghlu and Akhundov Huseyn Ahliman oghlu) who went missing due to limited visibility in adverse weather conditions, were beaten and filmed, distributed on social networks and illegally arrested by the Armenian court after being found guilty, these brutal and illegal actions were not only during the war, but after the war. İs the proof that it is continued. Even today, the discovery of buried human remains during the excavations carried out within the framework of restoration and construction works in the territories freed from occupation is chilling not only from a legal point of view, but also from a humanitarian point of view. “So what principles of international law have been violated by this barbaric nation?”, “Where is the latest report on this?” You will get the answers to these types of questions by reading this article.

**Key words:** human rights, principle of immunity, condition principle, the principle of individuals, the principle of protection

**Giriş**

**İnsan və hüquqları bir formulda**

Hüquq bizim haqlı olaraq bəyan etdiyimiz tələbdir. Əgər ölkənin konstitusiyasında əks olunubsa , vətəndaşların prezidenti seçmək hüququ var və əgər uşağın valideynləri ona söz veriblərsə, onun parka aparılmaq hüququ var. Bütün bunlar qarşı tərəf söz verdikdə və ya zəmanət verdikdə insanların gözləyə biləcəyi təminatlardır. İnsan hüquqları isə daha fərqli və üstün tələblərdir. İnsan hüquqları bütün insanların doğuşdan sahib olduğu hüquqlardır. Onlar qarşı tərəfin vədləri və ya zəmanətlərindən aslı deyillər. Şəxsin yaşamaq hüququ başqasının onu öldürməmək vədindən asılı deyil. İnsan hüquqlarını qəbul etmək hər kəsin bu tələbləri irəli sürə bilməsini qəbul etmək deməkdir: Sizin nə söyləməyinizdən və ya nə etməyinizdən asılı olmayaraq mənim hüquqlarım var, çünki mən də sizin kimi insanam və heç kim onları məndən ala bilməz. Fövqəladə hallarda bu hüquqlardan bəziləri məhdudlaşdırıla bilər. (3)

Əslində insan hüquqları insanın sadə ehtiyaclarını əks etdirir. İnsan hüquqları bərabərlik, ləyaqət, azadlıq və ədalət haqqındadır. Hər bir insan ayrı-seçkiliyə məruz qalmamaq, yaşamaq, söz azadlığı, təhsil almaq və digər hüquqlara malikdir. İnsan hüquqları bütün şəxslər üçün bərabər və daimi, hər bir ölkədəki insanlar üçün eynidir. Yəni, hər bir fərdin hansı ölkədə doğulmasından və ya yaşamasından asılı olmayaraq hüquqlar bərabərdir. Onlar ayrılmaz, bölünməz və bir-birinə bağlıdır. Bu, o deməkdir ki, onlar heç vaxt insanlardan alına bilməz. Bütün hüquqlar eyni dərəcədə mühüm və tamamlayıcıdır.

Hər kəs doğulduğu andan toxunulmaz, ayrılmaz hüquqlara və azadlıqlara malikdir. Bu hüquq və azadlıqlar şəxsin cəmiyyət və digər şəxslər qarşısında məsuliyyətini və vəzifələrini ehtiva edir. Vətəndaşların hüquqları şəxsin müəyyən dövlətə məxsusluğu ilə sıx bağlıdır. Bu hüquqlar dövlət tərəfindən müdafiə olunur. Konstitusiyalarda əsas hüquqların və beynəlxalq razılaşmaların köməyi ilə insan haqları inkar olunmaz bir hüquq kimi qəbul olunub.

Beynəlxalq aləmdə insan haqları BMT-nin İnsan hüquqları haqqında Ümumi Bəyannaməsi ilə qanuniləşdirilib. İnsan haqları bir çox hallarda bütün insanların eyni haqqa malik olması ideyasına uyğun olaraq belə ifadə olunur: “Hər bir insan onun mənsub olduğu irqdən, cinsiyyətdən, dildən, dindən, siyasi və digər baxışlardan, milli və sosial mənşədən, mülkiyyətdən, doğum və digər hallardan aslı olmayaraq təmin edilmiş insan haqlarına və azad olmaq hüququna malikdir’’. (4)

**Əsas hissə**

**Ermənilər tərəfindən heçə sayılan beynəlxalq hüququn prinsipləri**

Hərbi konfliktlər dövründə insan hüquqlarının müdafiəsi məsələləri əsasən beynəlxalq humanitar hüquqla tənzimlənir. Silahlı münaqişə zamanı insan hüquqlarının qorunmasında beynəlxalq humanitar hüququn prinsipləri də vacib rol oynayır. Gəlin keçmişdən bu günə qədər ermənilərin bu prinsiplərə nə dərəcədə əməl etdiklərini ətraflı şəkildə nəzərdən keçirək. (Əliyev,2019:175-176)

**1. Toxunulmazlıq prinsipi- Kimsənin qanunsuz olaraq mülkiyyətdən məhrum edilməsinin yolverilməzdir. (Əliyev,2019:177)**

Ermənistanın 1988-1992- ci illərdə planlı şəkildə həyata keçirdiyi son etnik təmizləmə siyasəti nəticəsində tarixən həmin ərazidə yaşamış 250 min nəfər azərbaycanlı son nəfərədək öz doğma yurdlarından zorla qovulmuş və Azərbaycana sığınmışdır.

Bütün bunlarla yanaşı, 1990-cı ildə Orta Asiyadan didərgin salınmış 50 min nəfərədək Axıska türkü də Azərbaycanda sığıncaq tapmışdır.

Ermənistan silahlı birləşmələri tərəfindən 1988-ci ildən başlayaraq Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağın azərbaycanlılar yaşayan 126 yaşayış məntəqəsindən onların zorla çıxarılması planı həyata keçirildi. Məhz bu dövrdə 1992-ci fevralın 26-da XX əsrin ən faciəli hadisələrindən biri törədildi - Dağlıq Qarabağda 6000 nəfər azərbaycanlının yaşadığı Xocalı şəhəri keçmiş Sovet ordusunun 366-cı alayının köməyi ilə Ermənistan silahlı qüvvələri tərəfindən bir gecədə xüsusi qəddarlıq və amansızlıqla darmadağın edildi. Beləliklə 1988-ci ildən başlayaraq, Ermənistan silahlı qüvvələrinin hərbi təcavüzü nəticəsində Azərbaycan torpaqlarının 20 faizi- Dağlıq Qarabağın, eləcə də ona bitişik olan 7 rayonun ərazisi işğal olunmuş, dağlıq Qarabağdan, ətraf rayonlardan , həmçinin Ermənistanla və ya Dağlıq Qarabağla həmsərhəd olan yaşayış məntəqələrindən 700 min nəfərədək azərbaycanlı öz daimi yaşayış yerlərindən məhrum olaraq məcburi köçkün düşmüşdür. (5)

**Toxunulmazlıq prinsipi**-hər bir fərdin onun həyatına, həm fiziki, həm də psixi toxunulmazlığına və şəxsiyyətinin ayrılmaz hissəsi olan atributlara hörmət hüququ vardır. Bu prinsipin elementlərinə daxildir: müharibə meydanında həlak olmuş insan toxunulmazdır; əsir düşənlərin sağ qalmaq hüququ vardır; işgəncə, alçaldıcı və qeyri-insani cəzalar qadağındır; hər kəsin qanun qarşısında onun insan hüquqlarının tanınması hüququ vardır; hər kəsin onun şərəfi, ailə hüquqları, əqidə və adətlərinə hörmət edilməsi hüququ vardır. (Əliyev,2019: 177)

**Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasında olan materiallar göstərir ki, Ermənistan tərəfi əsir və girov götürülmüş Azərbaycan vətəndaşlarına qarşı məqsədli soyqırımı siyasəti yeridir. Yüzlərlə Azərbaycan vətəndaşı, o cümlədən uşaq, qadın və qocalar erməni əsir və girovluğunda dözülməz işgəncələrin qurbanı olmuşdur. Çoxsaylı faktlar sübut edir ki, əsir və girovlara müxtəlif dəhşətli işgəncələr verilmiş-onlar vəhşicəsinə döyülmüş, qəsdən şikəst vəziyyətinə salınmış, sinələrinə qızdırılmış xaç nişanları ilə damğa basılmış,** dırnaqları **və dişləri çıxarılmış, yaralarına duz basılmış, ölənə qədər rezin və dəmir dəyənəklərlə döyülmüş, damarlarına benzin yeridilmişdir.**

**Aşağıda bu faktların bir qismi göstərilir: (6)**

- Girov götürülərkən 3 yaşı olan Şövqi Xaqani oğlu Əliyevin (24.07.1993) bazu sümüyü Xankəndində erməni "həkimləri" tərəfindən çıxarılmış, nəticədə Şövqi ömürlük şikəst qalmışdır.
- Kəlbəcər rayonunun işğalı zamanı girov götürülən (31.03.93) Gülcamal Quliyevanın yenicə doğulmuş oğlu Arzu Hacıyevə erməni "həkimi" Aida Serobyan naməlum tərkibli iynələr vurmuşdur. Beləliklə, Arzu Hacıyev ömürlük şikəst qalmışdır.
- Anası Afət Mirzəyevanı və babası Aslan Mirzəyevi ermənilər qəddarcasına güllələyərkən Babək İlyasov cəmi yeddi aylıq imiş. Qəlpələr Babəkin sağ gözünü yaralamış, amma buna baxmayaraq ermənilər onu da Kəlbəcər rayonundan girov götürülmüş digər həmkəndliləri ilə birlikdə yalnız dörd aydan sonra və həm də müalicə etmədən qaytarmışlar. Hal-hazırda Babəkin bir gözü kordur.
- Ermənilər 15 yaşlı girov Nəzakət Məmmədovanın gözləri qarşısında atasına ağlasığmaz işgəncələr vermiş, onun qulaqlarını kəsmiş, anası hədə və şantajlara dözməyərək dəli olmuş, qızın özünü isə 4 mln. rus rubluna ailəsinə satmışlar.
- Zəminə Göyüş qızı Dadaşova ermənilər tərəfindən girov götürülərkən qolundan aldığı güllə yarası baxımsızlıq səbəbindən çirk eləmiş və onun bədənində çürümə prosesi getmişdir. Hal-hazırda Zəminənin sol qolu işləmir. Girov götürülən zaman isə ermənilər onun atası Göyüş Dadaşovu və yaşlı nənəsi Qönçə İbadovanı oradaca güllələmişlər.
- Erməni nəzarətçiləri Ağdam rayonundan girov götürülmüş Kəklik Həsənovaya qorxunc işgəncələr vermiş, mismar kəlbətini ilə onun 16 dişini çıxarmışlar.
- Ağdam rayonunun işğalı zamanı ermənilər tərəfindən girov götürülən yaşlı qadın Şərqiyyə Rza qızı Şirinovanın 8 qızıl dişi mismar kəlbətini ilə çəkilmişdir. O, altı ay davamlı işgəncələrə məruz qalmışdır.
- Qubadlı rayonunun işğalı zamanı 65 yaşlı Biniş Rəsul qızı Məmmədova və 69 yaşlı Sara Miriş qızı İsmayılova girov götürülüb Xankəndi hərbi hissəsində saxlanmışdır. Burada olarkən onları

gündüz ağır fiziki əmək tələb edən işlərdə işlədir, gecələr isə xüsusi amansızlıqla döyürmüşlər. Onlarla birlikdə saxlanan Şahsənəm və Əsli adında qadınlar bu cür ağır işgəncələrə tab gətirməyərək girovluqda ölmüşlər.

- Ağdam rayonunun keçmiş sakini, milliyyətcə rus olan, erməni əsirliyində hədsiz işgəncələrə məruz qalmış Vladimir İvanoviç Şevelyov 1994-cü ildə Ağdam rayonunun işğalı zamanı 89 yaşlı anası Vera Davıdovnanın və ahıl yaşlı bacısı Svetlana İvanovnanın, eləcə də 58 yaşlı xəstə qardaşı Anatoli İvanoviçin ermənilər tərəfindən vəhşicəsinə öldürülüb yandırıldığını, Ağdam kanalının yanında saysız-hesabsız qadın və uşaq meyiti gördüyünü bildirir. Bundan başqa Vladimir Şevelyov şahidlik edir ki, ermənilər Ağdam rayonunun işğalı zamanı oradakı ruhi xəstəxanada saxlanan 7 ruhi xəstəni, o cümlədən iki xəstə qadını girov götürmüşlər. Onların biri azad edilmiş, biri döyülə-döyülə öldürülmüş, digərlərinin sonrakı taleyindən isə bu günə qədər məlumat yoxdur.
- 1930-cu il təvəllüdlü Ağdam rayon sakini Əli Rəsul oğlu Abbasov erməni girovluğunda davamlı olaraq döyülmüş, onun bədəninə siqaret basılaraq yandırılmışdır. Aldığı mənəvi və fiziki işgəncələrdən özünə gələ bilməyən Əli Abbasov erməni əsirliyindən azad ediləndən bir müddət sonra dünyasını dəyişmişdir.
- Erməni hərbçiləri Füzuli rayonundan girov götürdükləri Mürvət Fətiş oğlu Ağayevi döyərək qulağını kəsmiş, əllərini məftillə arxadan bağlayaraq ağacdan asmış və ayaqlarının altında ocaq qalayaraq yandırmışlar.
- Hərbi əsirlər - Novruz Məhəmməd oğlu Daşdəmirov, Namiq Cavanşir oğlu Qarayev mütəmadi döyülmə, bədənlərinə qızdırılmış cismlərlə dağ basılma və başlarına mismar çalınması səbəbindən ruhi xəstə həddinə çatdırılmışlar.
- Hərbi əsir Mürşüdov Sədrəddin Aslan oğlu döyüldükdən sonra şüşə qırıqlarını udmağa vadar edilmişdir.
- Yaralı vəziyyətdə əsir götürülmüş Əbdüləzim Məcnun oğlu Məmmədov rezin dəyənəklə döyülmüş, damarına benzin yeridilmiş, yaralarının qaysağı qopardılaraq ona əzab verilmiş, üzərinə təlim keçmiş it buraxılmışdır.
- Mayıl Məhəmmədəli oğlu Məmmədovun damarına dizel yanacağı yeridilmiş, sinəsi qızdırılmış xaçla damğalanmışdır.
- Amansızlıqla döyülmə nəticəsində hərbi əsir Cavid Ağa oğlu Hüseynovun çənəsi və qabırğaları sınmışdır. Ermənilər dəmir parçası ilə Cavidin qoluna damğa basmış və yarasının üzərinə kislota tökmüşlər.

Həmçinin 4 oktyabr 2022 -ci il tarixində Xocavəndin Edili kəndində Azərbaycan Respublikasının Əsir və İtkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət komissiyasının işçi qrupunun topladığı ifadə və materiallar əsasında kütləvi məzarlıq aşkar edilib. Artıq dəqiq aydınlaşdırılıb ki, Xocavəndin Edili kəndində aparılan qazıntı işləri zamanı aşkar edilmiş kütləvi məzarlıqda dəfn olunmuş 12 meyit qalığı Azərbaycan hərbi qulluçularına aiddir. Bu da 1992-1993 cü illərdə erməni silahlı qüvvələrinin əllərində olan əsirləri öldürdüyünü və kütləvi şəkildə basdırdığını göstərir. Həmçinin ekspertiza yolu ilə müəyyən olunub ki, qətlə yetirildikdən sonra kütləvi şəkildə, qeyri-insani formada basdırılmış bu insanlara əvvəlcə işgəncə və əzab verilib. Meyit sümüklərində zədələr və xəsarət izləri var. Küt alət təsirindən kəllə sümüklərinin sınıqları müşahidə olunur. (7)

Hətta ən son nümunə kimi 2024-cü il mart ayının 28-də işğaldan azad edilmiş Xocalı şəhərinin Qaladərəsi adlanan hissəsində yerləşən su anbarının yaxınlığında həyata keçirilən əsaslı bərpa-quruculuq işləri çərçivəsində aparılan qazıntı işləri zamanı basdırılmış vəziyyətdə insana məxsus olması ehtimal edilən sümük fraqmentləri və qalıqların aşkar olunmasını da misal göstərə bilərik. (8)

Bütün bunlarla yanaşı Böyük Vətən müharibəsi zamanı ən iyrənc, insanlığa yaraşmayan davranış kimi erməni silahlı qüvvələrinin Azərbaycan əsgərlərinin cəsədləri üzərində təhqiredici, alçaldıcı hərəkətlərə yol verməsidir. Bu barədə yetərincə video, foto və s. materiallar da mövcuddur. ( Abbasbəyli,2020: 36)

**2. Ratione jonditionis(şərait prinsipi) və ya hərbi əməliyyatlar aparılmasının vasitə və metodlarına görə məhdudiyyət prinsipi- hərbi əməliyyatların kiməsə lüzümsuz zərər vura və ya həddən artıq əzab verə bilən silah və ya metodlardan istifadə etməklə aparılması qadağandır. (Əliyev,2019: 179)**

27 sentyabr - 10 noyabr 2020-ci il tarixləri ərzində Ermənistan Silahlı Qüvvələri tərəfindən vurulan zərbələr nəticəsində azərbaycanlı dinc əhalinin sıx yerləşdiyi rayon və şəhərlərin ərazisinə 30 minə yaxın mərmi və 227 raket atılıb. Döyüş meydanında məğlub duruma düşən Ermənistan davamlı olaraq Gəncəyə, Mingəçevirə, Tərtərə, Bərdəyə, Qəbələyə və digər yaşayış məntəqələrimizə raket hücumları edərək müharibə və insanlıq əleyhinə cinayətlər törətmişdir. Ermənistanın silahlı qüvvələri tərəfindən mülki şəxslərin çoxsaylı əmlakına ciddi ziyan vurulub, yaşayış evləri, çoxmənzilli yaşayış binaları, qeyri-yaşayış sahələri yerlə-yeksan edilib.

2020-ci ilin təkcə 11 oktyabr tarixində Ermənistan Silahlı Qüvvələrinin Gəncənin mərkəzi hissəsindəki çoxmənzilli yaşayış binalarını raket atəşinə tutması nəticəsində 10 nəfər həlak olub, 35-dən çox şəxs yaralanıb, 10-dan artıq çoxmənzilli binaya və 100-dən çox müxtəlif təyinatlı obyektə ziyan dəyib. Həmçinin bildirilib ki, bu hadisədən bir neçə gün sonra, oktyabrın 17-də baş verən terror aktı zamanı 15 nəfər həlak olub, 50-dən çox şəxs yaralanıb. Ümumilikdə isə Gəncə 2020-ci ilin oktyabrında 5 gün – 4, 5, 8, 11 və 17 oktyabr tarixlərində raket atəşlərinə tutulub. Beləliklə, 26 nəfər həlak olub, 120-dən artıq dinc sakin yaralanıb, irimiqyaslı dağıntılar baş verib.

Əhalinin sıx yerləşdiyi ərazilərə "Toçka-U", "Smerç", "Skad" və digər tipli dağıdıcı raketlərlə hücumun həyata keçirilməsi çoxlu sayda dinc insanın qətlə yetirilməsi məqsədini daşıyıb.

Bərdə şəhərinə raket hücumu zamanı qadağan olunmuş kaset tipli bombalardan istifadə edilib.

2020-ci il oktyabrın 27-də Bərdə rayonunun Qarayusifli kəndinə, oktyabrın 28-də isə Bərdə şəhərinə olan raket hücumları nəticəsində 27 nəfər həlak olub, 70 nəfərdən artıq insan yaralanıb. 2020-ci il oktyabrın 28-də düşmənin silahlı birləşmələri tərəfindən Bərdə şəhərinin mərkəzinə hər birinin içərisində 72 ədəd, ümumilikdə 144 bombacıq olan “Smerç” tipli böyük dağıdıcı qüvvəyə malik 2 ballistik raket zərbəsi nəticəsində 5-i qadın olmaqla, 21 nəfər həlak olmuş, 70 şəxs isə müxtəlif dərəcəli bədən xəsarətləri almışdır.

**27 sentyabr - 10 noyabr 2020-ci il tarixləri ərzində düşmən tərəfin silahlı qüvvələrinin dinc əhalini atəşə tutması nəticəsində 12 azyaşlı və 27 qadın olmaqla 93 nəfər qətlə yetirilib, 50 azyaşlı və 101 qadın olmaqla 407 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri alıb.**

Erməni silahlı qüvvələrinin kobudcasına pozduğu müharibə hüququnun prinsipləri bütün bunlarla kifayətlənmir. Həmçinin 28 sentyabrda Azərbaycan Silahlı Qüvvələri tərəfindən verilən məlumata görə, erməni itkiləri arasında Suriyadan və Yaxın Şərqin müxtəlif ölkələrindən olan erməni mənşəli muzdlular vardır. 30 sentyabr tarixində Hikmət Hacıyev "beynəlxalq ictimaiyyətin Ermənistanın terrorçu qüvvələrini Azərbaycana qarşı istifadə etməsinə adekvat reaksiya verməli" olduğunu öz çıxışında bildirdi. Bir sıra PKK, YRG mənsubları da sonralar müxtəlif mətbuat orqanlarına verdikləri müsahibələrdə terror təşkilatı üzvlərinin Qarabağda ermənilər tərəfdə döyüşdüyünü etiraf etmişdilər.

Bundan əlavə, Livan, Suriya, Fransa və bəzi Latın Amerikası ölkələrində yaşayan ermənisilli vətəndaşların erməni diasporunun çağırışları ilə beynəlxalq hüquq prinsiplərinə zidd olaraq döyüşlərdə iştirakıda üzə çıxmışdır. 1 oktyabr tarixində Suriya İnsan Haqları Monitorinq mərkəzi ermənisilli suriyalı döyüşçülərin Suriyadan Ermənistana aparıldığını təsdiqləydi.(9)

**3. Ratione loji (obyekt prinsipi) və ya obyektlərə görə məhdudiyyət prinsipi- hücumlar yalnız hərbi obyektlərə edilməklə məhdudlaşmalıdır. Bu prinsipin elementlərinə daxildir: Müdafiə olunmayan yerlərə hücum etmək qadağandır; elmi tədqiqatlar aparılan və ya xeyriyyə təsisatları yerləşən binalar və xalqların mədəni mənəvi irsini təşkil edən tarixi abidələr, incəsənət əsərləri və ya dini ibadət yerlərinə qarşı yönəlmiş hər hansı düşmən hərəkətə yol verilməsi qadağandır; qurğu və tikililərə onlardan mülki əhali üçün təhlükəli qüvvələr yarana biləcəyi halda hücum etmək qadağandır; mülki əhali hərbi obyektlərin hücumlardan müdafiəsi üçün istifadə edilə bilməz; mülki obyektlər hücum və ya təzyiq tədbirlərinin obyekti ola bilməz (Əliyev,2019: 178)**

Təəssüflər olsun ki, ermənilər 90-cı illərdə işğal etdikləri Azərbaycan torpaqlarında tarixi əks etdirən tikililəri, türbələri, məscidləri darmadağın etdilər. Bir qismini isə ermənileşdirməyə, özləri üçün saxta tarix ‘’ yazmağa’’ çalışdılar. Biz bunun ordumuzun 27 sentaybrda başladığı əks -həmlə əməliyyatları ilə azad edilən torpaqlarımızda da bir daha şahidi olduq. Azad edilən yaşayış məntəqələrimizdə bir dənə də salamat tikili yox idi. Hətta yerlə-yeksan edilmiş məscidlərdə donuz, iribuynuzlu, xırdabuynuzlu və heyvanlar saxlamışdılar. Bu cür vəhşiliyi törədənlərin isə nə millətlərə, nə dinlərə, nə də mədəniyyətlərə hörməti yoxdur.

Rəsmi məlumatlara istinadən Qarabağ və ətraf rayonlarda tarixi-dini tikililərin sayı 403-dür. Bunların 67-si məscid, 144-ü məbəd, 192-si isə türbələrdir. Qəbiristanlıqların sayı isə 900-dən artıqdır. Şuşada yerləşən Yuxarı və Aşağı Gövhər Ağa məscidləri, Saatlı məscidi, Ağdamda yerləşən Cümə məscidi dağıdılmış, Laçın rayonunda yerləşən Ağoğlan, Kəlbəcər rayonunda yerləşən Xudavəng, Ağdərə rayonunda yerləşən Gəncəsər və digər məbədlər isə erməniləşdirilmiş tarixi tikililərdəndir. Həmçinin Şuşada yerləşən Üzeyir Hacıbəyovun və Bülbülün ev muzeyləri, Xurşidbanu Natəvanın saray kompleksi, Firudin bəy köçərlinin və Zöhrabbəyovların malikanələri, Mir Möhsün Nəvvabın evi, Molla Pənah Vaqifin türbəsi də erməni vandalları tərəfindən dağıdılan tikililərdəndir.

Təbii ki, ermənilərin tariximizə və mədəniyyətimə qarşı bu dəhşətli əməlləri bununla da bitmir. Ağdamda Pənahəli xanın imarəti, Cümə məscidi, Laçında Həmzə Sultan və Sultan Əhməd sarayları, qədim məscidlər, qəbirlər, kurqanlar tarixi tikili olan yaşayış binaları da xaraba qoyulan tarixi tikililər arasındadır.

Ermənilərin bu cür vəhşi əməllərinə Ermənistandakı tarixi Azərbaycan ərazilərində dini abidələr də məruz qalmış, Irəvan Şah Abbas məscidi, Dəmirbulaq məscidi, Hacı Novruz Əli məscidi, Sərdar məscidi tamamilə məhv edilmişdir.

Bütün bunlarla yanaşı, Azərbaycan əsilli fransız fotoqraf Reza Deqati işğaldan azad edilən Ağdamda Xan qızı Natəvanın məzarından foto və videolar paylaşaraq Natəvanın sümüklərinin məzarından çıxarılıb aparıldığını dünya mediasının diqqətinə çatdırıb.(10)

**4. Ratione personae (fərdlər prinsipi) və ya məhdudiyyət prinsipi- mülki əhali və ya ayrı-ayrı mülki şəxslər hərbi əməliyyatlarla əlaqədar meydana çıxan təhlükədən ümumi müdafiə hüququna malikdir (Əliyev,2019: 178)**

Qeyd olunan prinsipin hansı dərəcədə pozulduğu ilə bağlı bir neçə fakt və epizod təqdim etmək istərdik.

İkinci Qarabağ müharibəsi zamanı Gəncənin mərkəzi hissəsində çoxmənzilli yaşayış binalarının raket atəşinə tutulması nəticəsində yaralanan 35 nəfərdən 10 nəfər məktəblidən ikisi 2-ci sinif, ikisi 3-cü sinif, biri 4-cü sinif, ikisi 6-cı sinif, biri 7-ci sinif, biri 10-cu sinif və biri 11-ci sinif şagirdləri idilər.

Gəncəyə raket zərbələri nəticəsində qətlə yetirilənlər arasında olan 13 yaşlı Rusiya vətəndaşı Artur Mayakov (Quliyev), Gəncə sakini Ramil Quliyevin övladı olub. 2020-ci il 17 oktyabr tarixində Muxtar Hacıyev küçəsinə endirilən raket zərbəsi Arturun, nənəsinin və 2 bibisinin yaşadığı mənzili darmadağın edir. Dağıntılar altından çıxarılıb xəstəxanaya yerləşdirilən yeniyetmə 7 gün sonra dünyasını dəyişib.

2020-ci il 27 sentyabr tarixində axşam saat 5-6 radələrində Naftalan şəhər inzibati ərazi dairəsinə daxil olan Qaşaltı kəndinə Ermənistan silahlı qüvvələri tərəfindən artilleriya hücumu zamanı kəndin sakini Nadir Qurbanovun evi atəşə məruz qalıb və onun atası, anası, həyat yoldaşı Afaq Əmirova, məktəblilər - Qaşaltı Qaraqoyunlu kənd tam orta məktəbinin VII sinif şagirdi Şəhriyar Qurbanov və IX sinif şagirdi Fidan Qurbanova həlak olublar.

Vətən müharibəsi dövründə həm Bərdə şəhəri, həm də rayonun bəzi kəndləri düşmənin əsas hücum hədəflərindən olublar. Beləliklə, Bərdə sakinləri arasında xeyli mülki şəxs şəhid olub, rayon mərkəzi və bir sıra kəndlər irimiqyaslı dağıntılara məruz qalıb.

2020-ci il oktyabr ayının 7-də rayona atılmış raket Qarayusifli kəndinə düşüb, kənd tam orta məktəbin ikinci sinif şagirdi Aysu İsgəndərli, oktyabrın 28-də Bərdə şəhərinin mərkəzinin atəşə tutulması nəticəsində 1989-cu il dekabrın 12-də anadan olmuş şəhər 1 nömrəli məktəbin fiziki tərbiyə müəllimi Fuad İsmayılov həlak olublar. Rayonun Yeni Əyricə kəndinə mərmi düşməsi nəticəsində 2004-cü il təvəllüdlü məcburi köçkün, 10-cu sinif şagirdi Şahmalı Rəhimov həlak olub.

44 günluk müharibə dövründə Ermənistan silahlı qüvvələri tərəfindən Tərtər rayonunun 17 məktəbi müxtəlif dərəcəli dağıntılara məruz qalmışdır.Rayonun Xoruzlu kəndinə mərmi düşməsi nəticəsində kənd tam orta məktəbinin X sinif şagirdi Orxan İsmayılov həlak olub, Qapanlı kənd tam orta məktəbinin direktoru Fitat Əliyeva ağır kəllə beyin travması, Seyidimli kənd tam orta məktəbinin fiziki tərbiyə müəllimi Mübariz Əliyev isə ayağından qəlpə yarası alıblar.

Bunlarla yanaşı, Birinci Qarabağ müharibəsi dövründə və sonrakı illərdə erməni işğalçıları tərəfindən uşaqların, şagirdlərin və müəllimlərin öldürülməsi, habelə Azərbaycan torpaqlarında məktəblərin talanması, qəsdən məhv edilməsi ilə bağlı bəzi digər dəhşətli faktlar barədə də bir daha danışmaq, məlumatlar vermək istəyirik.

İlk növbədə bildirmək istərdik ki, Xocalı soyqırımı Azərbaycan tarixinə ən dəhşətli və faciəli səhifələrdən biri kimi daxil olub. Bütövlükdə Azərbaycan xalqına qarşı törədilmiş bu soyqırım öz ağlasığmaz qəddarlığı və qeyri-insani cəza üsulları ilə bəşər tarixində bir vəhşilik aktıdır. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri tərəfindən Sovet ordusunun 366-cı motoatıcı alayının iştirakı ilə Xocalı şəhəri işğal edilərkən, etnik azərbaycanlılara qarşı soyqırım törədilib. Soyqırım nəticəsində 63-ü uşaq, 106-sı qadın, 70-i qoca və qarı olmaqla, 613 Xocalı sakini qətlə yetirilib, 8 ailə tamamilə məhv edilib, 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirib. Düşmən gülləsinin nəticəsində 76-sı uşaq olmaqla, 487 nəfər yaralanıb. 1275 nəfər əsir götürülüb. Əsir götürülənlərdən 150 nəfərinin, o cümlədən, 68 qadın və 26 uşağın taleyi bugünədək naməlumdur.

Burada qeyd etmək lazımdır ki, şəhid olan 63 uşaqdan başqa, ermənilər tərəfindən Xocalı rayonunun digər yaşayış məntəqələrində daha 16 nəfər uşaq öldürülmüşdür. Həmin 79 uşaqdan 32-si azyaşlı, 7-si birinci sinif, 4-ü ikinci sinif, 2-si üçüncü sinif, 5-i dördüncü sinif, 2-si beşinci sinif, 3-ü yeddinci sinif, 4-ü səkkizinci sinif, 4-ü doqquzuncu sinif, 5-i onuncu sinif və 11-i on birinci sinif şagirdləri olublar.

7 nəfər Xocalı şəhər 1 və 2 nömrəli tam orta məktəblərin, həmçinin, Xankəndi şəhəri N.Şahmuradov adına 6 nömrəli Kərkicahan qəsəbə tam orta məktəbin müəllimləri - 1949-cu il təvəllüdlü Ələsgər Novruzov, 1954-cü il təvəllüdlü Tofiq Hüseynov, 1949-cu il təvəllüdlü Afilə Məmmədova, 1938-ci il təvəllüdlü İbiş İsmayılov, 1940-cı il təvəllüdlü Həmayıl Abbasova, 1970-ci il təvəllüdlü Ülfət Əliyev, 1956-cı il təvəllüdlü Şahverdi Səfərov və 1949-cu il təvəllüdlü texniki işçi Məxmər Hüseynova da qətlə yetirilənlər arasında olublar. (11)

**5. Müdafiə prinsipi- dövlət onun əlinə keçmiş şəxsin istər milli istərsə də beynəlxalq səviyyədə hüququnu təmin etməlidir. Bu prinsipin elementlərinə daxildir: əsir onu tutmuş qoşunların deyil onların tabe olduqları dövlətin ixtiyarındadır; düşmən dövlət əsir götürdüyü şəxslərin şəraiti və saxlanılmasına görə məsuliyyət daşıyır; münaqişələrin qurbanları təbii müdafiədən məhrum olduqları üçün beynəlxalq müdafiə ilə təmin edilməlidirlər.( Əliyev,2019: 178)**

2020-ci il Vətən müharibəsi zamanı əlbəttə ki, hər iki tərəfdən əsir düşənlər olub. Azərbaycan tərəfi hər zaman bütün beynəlxalq norma və prinsiplərə uyğun olaraq əsir və girovların saxlanılması, onların dəyişdirilməsi, o cümlədən humanitar atəşkəs zamanı erməni hərbçilərinin meyitlərinin qaytarılması ilə bağlı bütün norma və prinsiplərə əməl edib. Ancaq çox təəssüf ki, erməni tərəfi azərbaycanlı əsirlərlə davranışda hər zaman olduğu kimi vandallıq, barbarlıq edir, sosial şəbəkələrdə azərbaycanlı əsirlərə verdikləri işgəncələri bariz şəkildə nümayiş etdirirdilər. Bu, erməni vəhşiliyinin, erməni murdarlığının növbəti bir göstəricisidir. Çox təəssüfedici haldır ki, 21-ci əsrdə insanlara bu qədər işgəncə vermək, güc tətbiq etmək və zorakılığa məruz qoymağa beynəlxalq təşkilatlar susqunluqla beynəlxalq təşkilatlar və insan haqları ilə bağlı davamlı çıxış edən dövlətlər susqunluq nümayiş etdirirdilər. Çünki bu vandallıqdır, dünyanın heç bir yerində əsirlərə qarşı belə vəhşilik edilmir".

İnanılmaz azğınlığın ən sonuncu məqamı kimi onu da qeyd etmək lazımdır ki, Azərbaycan hərbi qulluqçuları Musayev Amin Alim oğlu, Kərimov Bayram Yaşar oğlu ağır yaralı vəziyyətdə əsir alınarkən, hətta ukraynalı jurnalistin çəkiliş apardığı anlarda fiziki təzyiqə məruz qalmış, döyülmüşlər. Erməni hərbçilərinin azğınlığı,vəhşiliyi o həddə çatmışdır ki, bəlkə də jurnalistlərin həmin məqamda orada olması onun həyatının qurtuluşuna səbəb olmuşdur. Sonradan hərbi qulluqçu Musayev Amin Alim oğlu guya ki, Azərbaycan tərəfinə təhvil verilirmiş kimi aldadılaraq, xüsusi avtomobilə yerləşdirilərək naməlum istiqamatə aparmışlar. Daha sonra avtomobil hərəkətdə olarkən yol boyu, aciz vəziyyətdə uzadılmış hərbçimizə qarşı fiziki zor tədbiq edilmiş, təhqirə məruz qoymuşdular. Bütün bunların hamısı video materillarla sübut edilir. İlkin olaraq, iki yaralı əsgərin döyüşlərdən sonra ukraynalı jurnalist Aleksandr Xarçenko və erməni əsgərlər tərəfindən ilkin tibbi yardım göstərildiyini əks etdirən videolar yayılıb. Bunun ardınca isə onlardan birinə maşının içərisində zorakı davranıldığını əks etdirən video da yayılıb. Məhz bu hadisə ilə bağlı, Ermənistanın Azərbaycana qarşı təkrar hərbi təcavüzü nəticəsində əsir düşmüş Azərbaycan əsgərlərinə münasibətdə beynəlxalq hüquq normalarının və humanitar hüquq qaydalarının kobud şəkildə pozulması, onların işgəncələrə, alçaldıcı davranışa məruz qalmaları və digər faktlarla bağlı Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva tərəfindən 12 noyabr 2020-ci il tarixində aidiyyəti beynəlxalq

təşkilatlara müraciətlər ünvanlanmışdı. Lakin bu əsirlərin taleyi barədə uzun müddət nə Ermənistan, nə də Beynəlxalq Qızıl Xaç komitəsi bir açıqlama verməmişdi.

Digər iki hərbi əsir Əlizadə Nurlan Mehman oğlu və Həmidov Nahid Yaşar oğlu da əsir götürülən andan 10 –dan çox erməni hərbçi tərəfindən şiddətə məruz qalmış, vəhşicəsinə döyülmüş, davamlı olaraq yumruq, təpiklə, avtomatın qundağı ilə zərbələrə məruz qalmışlar. Bu hadisə barədə video materiallar mövcuddur. Bizdə olan məlumatlara görə, ona işgəncə verənlərdən biri – erməni hərbçisi hal-hazırda Azərbaycan tərəfə əsir düşmüşdür. Erməni əsirinin verdiyi ifadələrdən də aydın olur ki, Azərbaycanlı əsirlərə qarşı xüsusi qəddarlıqla yanaşma, onları döymək, təhqir etmək, işgəncələrə məruz qoyma, yerinə yetiilrməsi vacib olan sıradan bir hal olub. Hətta bu barədə erməni komadirlərinin xüsusi tapşırıqları da olub, işgəncələr əsir düşənlərlə bağlı istisnasız olaraq, mütləq tədbirlərdən biri idi.

Digər bir hərbi əsir Baxşəliyev Emin Zahir oğlunun ciddi təzyiqlərə, işgəncələrə məruz qalması, şəxsiyyətinin alçaldılması, bu və digər hərəkətlərin edilməsinə məcbur edilməsi barədə video faktlar mövcuddur.

Bu cür halların digər Azərbaycanlı hərbi əsirlərə - Abdinov Yəhya Vüqar oğluna, Əhmədzadə Mobil İlqar oğluna, Ələkbərov Ömər Teymur oğluna, Əliyev Şərif Elsevəroğluna, Əliyev Anar Hidayət oğluna, Vəliyev Vəliəhəd Şakir oğluna və Yolçuyev Nurəddin Bəxtiyar oğluna da qarşı törədilməsi müxtəlif mənbələrlə təsdiqlənir. Hərbi əsirlərimiz işgəncələrə məruz qalmış, şəxsiyyətlərinin alçaldılması hərəkətlərinə yol verilmişdir.

Erməni əsirliyində saxlanılan Şahbaz Quliyev və Dilqəm Əsgərovla bağlı isə məsələ daha da fərqlidir. 2014-cü il iyulun 11-də Rusiya vətəndaşı Dilqəm Əsgərov və Azərbaycan vətəndaşı Şahbaz Quliyev Kəlbəcər rayonunda öz ata-baba yurdlarına baş çəkmək istəyərkən Ermənistan Silahlı Qüvvələri tərəfindən girov götürülüblər, işğal altındakı Dağlıq Qarabağda Dilqəm Əsgərov və Şahbaz Quliyev ilə bağlı qanunsuz"məhkəmə" qurublar. "Məhkəmə"nin qərarı ilə Dilqəm Əsgərov ömürlük, Şahbaz Quliyevisə 22 il müddətinə azadlıqdan məhrum edilmə cəzasına məhkum olunub. Bu müddət ərzində onların hansı şəraitdə saxlandığı, nə cür işgəncələrə məruz qalmaları və s. barədə kifayət qədər əsaslar var. (Abbasbəyli,2020: 33-36)

Nəticə

Bu gün ermənilər öz xislətlərini yenə də davam etdirirlər. Belə ki, ermənilər nəinki müharibə gedən ərazilərdə mina basdırılması ilə yetinməyib, hətta təmas xətti olmayan ərazilərdə də mina basdırılması prosesinə davam etmişdirlər. Beləliklə, Azərbaycana qarşı mina terroru nəticəsində yüzlərlə azərbaycanlı mina qurbanı olmuşdur və insanlığa qarşı bu hərbi cinayət bu gün də davam edir.10 noyabr 2020-ci il tarixli Üçtərəfli Bəyanatdan sonra ermənilər tərəfindən atəşkəsin dəfələrlə pozulduğunun şahidi olmuşuq. Həmçinin əlverişsiz hava şəraitində məhdud görmə səbəbindən itkin düşən iki azərbaycan hərbiçisinin( Bəbirov Aqşin Qabil oğlu və Axundov Hüseyn Əhliman oğlu) döyülərək videoya çəkilib sosial şəbəkələrdə yayıldığının və təqsirli bilinərək Ermənistan məhkəməsi tərəfindən qanunsuz olaraq həbs olunduğunu ürək ağrısı ilə izləmişik. Ermənistan beynəlxalq konvensiyaları və beynəlxalq humanitar qanunları kobud şəkildə pozaraq hər iki hərbi əsirə qarşı qeyri-insani davranır, onları işgəncələrə məruz qoyur, ailə üzvləri ilə etibarlı şəkildə əlaqə saxlamağa imkan vermir.(12)

Sonda isə bizlərə qarşı törədilən bütün bu misli olmayan cinayətlərə qarşı susan hər bir dövlətə sual ünvanlamaq istəyirəm . Hansı dövlət tarix boyu bu cür azğın, vəhşi bir millətlə üz-üzə qalıb?

Ədəbiyyat siyahısı

1. Əmir Əliyev. İnsan hüquqları. Bakı-2019
2. Ermənistan -Azərbaycan müharibəsində azərbaycanlı əsirlərə qarşı pis rəftar və işgəncələrlə bağlı ilkin hesabat. Bakı 2020. N.Abbasbəyli

İnternet resursu

3.https://www.coe.int/az/web/compass/what-are-human-rights-
4.https://www.muallim.edu.az/news.php?id=20966
5.http://shamkir-ih.gov.az/page/66.html
6.https://www.google.com/url?sa=t&source=web&rct=j&opi=89978449&url=https://supremecourt.gov.az/static/view/181&ved=2ahUKEwimtpjbt8yAAxW1QfEDHa2HB6UQFnoECAwQAQ&usg=AOvVaw0LT7djBwBo8YnX3x5gmb8H

7.https://azertag.az/xeber/Ermenistanin_toretdiyi_herbi_cinayetlere_gore_cezalandirilmamasi_dunyada_tehlukeli_tendensiya_yarada_biler-2321207
8.https://www.google.com/url?sa=t&source=web&rct=j&opi=89978449&url=https://qafqazinfo.az/news/detail/xocalida-insan-qaliqlari-askar-edildi-videofotolar-431496&ved=2ahUKEwilo63_spyFAxUCKBAIHdvKBXUQFnoECA4QAQ&usg=AOvVaw3HmMiGpIiq6mVV0Z-jNgrz
9.https://azerbaijan.az/related-information/305
10.https://fraza.az/az/news/read/41
11.https://525.az/news/173727-ermeni-vandallarinin-dagitdiqlari-tehsil-muessiselerimiz-rovsen-agayev-yazir
12. https://modern.az/az/news/415657

# GÖMRÜK SAHƏSİNDƏ MƏCBURİ QƏRARLARIN QƏBUL EDİLMƏSİNDƏ BEYNƏLXALQ TƏCRÜBƏ

**Qasımlı Sara Elşən**
Dövlət Gömrük Komitəsinin Akademiyası, Bakı

**Xülasə**

Gömrük sahəsində məcburi qərarlar gömrük orqanları tərəfindən qəbul edilən və konkret gömrük qanun və qaydalarının konkret mallara və ya vəziyyətlərə necə tətbiq olunduğunu aydınlaşdıran rəsmi qərarlara aiddir. Bu qərarlar treyderlər və idxalçılar üçün əminlik və proqnozlaşdırıla bilənlik təmin edərək, onların öz öhdəliklərini aydın başa düşərək bizneslərini apara bilmələrini təmin edir. Ümumiyyətlə, əsasən iki növ məcburi qərar qəbul edilir: məcburi tarif məlumatı (BTI) və məcburi mənşə məlumatı (BOI). BTI düzgün tarif kodunu və tətbiq olunan rüsum dərəcələrini müəyyən etməklə, gömrük rüsumu məqsədləri üçün malların qəti təsnifatını təqdim edir. Bu, treyderlərə malların idxalı və ya ixracı zamanı ödəniləcək gömrük rüsumunun düzgün məbləğini müəyyən etməyə kömək edir. Digər tərəfdən, BOI malların mənşə ölkəsini təsdiq edir ki, bu da güzəştli ticarət müqavilələri üçün uyğunluğu müəyyən etmək və düzgün mənşə qaydalarını tətbiq etmək üçün çox vacibdir. Məcburi olan bu qərarlar gömrük orqanları və qərarı tələb etmiş ticarətçi üçün hüquqi qüvvəyə malikdir. Onlar adətən müəyyən bir müddət üçün etibarlıdır və müəyyən şərtlər daxilində şikayət və ya baxıla bilər. Məcburi qərarlar şəffaflığı təşviq edir, ticarəti asanlaşdırır və gömrük qanun və qaydalarının aydın və ardıcıl şərhini təmin etməklə mübahisələrin həllinə kömək edir.

***Açar sözlər: gömrük, gömrük qərarları, beynəlxalq təcrübə***

**Summary**

Binding decisions in the field of customs refer to official rulings made by customs authorities that clarify how specific customs laws and regulations apply to particular goods or situations. These decisions provide certainty and predictability to traders and importers, ensuring that they can conduct their business with a clear understanding of their obligations and liabilities. In general, there are mainly two types of binding decisions: binding tariff information (BTI) and binding origin information (BOI). A BTI provides a definitive classification of goods for customs duty purposes, determining the correct tariff code and applicable duty rates. This helps traders determine the correct amount of customs duty to be paid when importing or exporting goods. On the other hand, a BOI confirms the

country of origin of goods, which is crucial for determining eligibility for preferential trade agreements and applying the correct rules of origin. These binding decisions are legally binding on the customs authorities and the trader who requested the decision. They are typically valid for a specified period and can be appealed or reviewed under certain conditions. Binding decisions promote transparency, facilitate trade, and help resolve disputes by providing clear and consistent interpretations of customs laws and regulations.

***Keywords: customs, customs decisions, international experience***

Gömrük sahəsində məcburi qərarların qəbul edilməsi mexanizmi müxtəlif ölkələr arasında dəyişir və onların tərəfdar olduqları beynəlxalq və regional çərçivələrdən asılıdır. Braziliya xarici ticarət qaydalarını modernləşdirmək və sadələşdirmək üçün daha geniş islahatın bir hissəsi kimi bu yaxınlarda gömrük sistemində məcburi qərarlar qəbul etmiş ölkələrdən biridir. 2022-ci ilin dekabrında Braziliya hökuməti 1,152 saylı Müvəqqəti Tədbiri (PM) nəşr etdi, bu, bir-birindən uzaq prinsipinə əsaslanan yeni transfer qiymətləri qaydalarını təqdim edir və həmçinin əlaqədar tərəflərdən idxal olunan malların gömrük qiymətləndirilməsi ilə bağlı məcburi qərarların tələb edilməsinin mümkünlüyünü müəyyən edir [3]. Baş nazir İqtisadiyyat Nazirliyinə gömrüklə bağlı digər məsələlər üzrə məcburi qərarların verilməsi şərtlərini və prosedurlarını tənzimləmək səlahiyyəti verir, məsələn tarif təsnifatı və mənşə qaydaları kimi. Braziliyada gömrük sistemində məcburi qərarların qəbulu Ümumdünya Ticarət Təşkilatı (ÜTT) və Ümumdünya Gömrük Təşkilatı (ÜGT) tərəfindən tövsiyə edildiyi kimi, ölkənin beynəlxalq standartlara və qabaqcıl təcrübələrə uyğunlaşdırılması istiqamətində mühüm addımdır. Məcburi qərarlar gömrük qaydalarının tətbiqində aydınlıq, şəffaflıq, ardıcıllıq və səmərəliliyi təmin etməklə həm gömrük orqanlarına, həm də ticarətçilərə fayda verə bilər. Məcburi qərarlar həmçinin mübahisələr və cəzalar riskini azalda, dövlət və özəl sektorlar arasında əməkdaşlığı və etimadı gücləndirə bilər. Bununla belə, Braziliyada gömrük sistemində məcburi qərarların icrası, xüsusən də köhnə qaydalardan yeni qaydalara keçid dövründə bəzi çətinliklər və qeyri-müəyyənliklər yaradır. Məsələn, Baş Nazir məcburi qərarların hüquqi təsirlərini və etibarlılığını, eləcə də onların ləğvi, dəyişdirilməsi və ya dayandırılması üçün meyar və mexanizmləri müəyyən etmir. Baş nazir həmçinin məcburi qərarlar ilə gömrük orqanlarının mövcud məhkəmə təcrübəsi və ya inzibati presedentləri arasında mümkün ziddiyyətlər və ya uyğunsuzluqlara toxunmur. Üstəlik, Baş Nazir idxal və ixraca nəzarət edən kompüterləşdirilmiş informasiya sistemi olan Xarici Ticarət İnteqrasiya Sistemi (SISCOMEX) çərçivəsində Braziliya Federal Gəlir Xidməti (RFB) tərəfindən verilmiş məcburi qərarlar ilə əvvəlcədən qərarlar arasında əlaqə və koordinasiyaya aydınlıq gətirmir. Buna görə də, İqtisadiyyat Nazirliyinin Braziliyanın gömrük sistemində məcburi qərarların əhatə dairəsini, prosedurlarını və təsirlərini müəyyən etmək, habelə onları digər mövcud alətlər və mexanizmlərlə uyğunlaşdırmaq üçün əlavə qaydalar və təlimatlar verəcəyi gözlənilir. Məcburi qərarların effektiv və səmərəli icrasını təmin etmək, prosesdə yarana biləcək hər hansı problem və ya çətinlikləri həll etmək üçün gömrük orqanları ilə ticarətçilərin konstruktiv dialoq və əməkdaşlıq etməsi də vacibdir. Bununla, Braziliya gömrük sistemini təkmilləşdirmək və xarici ticarətdə rəqabət qabiliyyətini artırmaq üçün məcburi qərarların potensialından istifadə edə bilər. Braziliya Ümumdünya Ticarət Təşkilatının (ÜTT) iştirakçısıdır və Braziliya ilə Avropa İttifaqı arasında Gömrük Əməkdaşlığı və Gömrük Məsələlərində Qarşılıqlı İnzibati Yardım haqqında Saziş, Əməkdaşlıq haqqında Saziş kimi gömrük əməkdaşlığına dair müxtəlif ikitərəfli və çoxtərəfli sazişlərdə iştirak etmişdir [5]. Bu sazişlər ticarəti asanlaşdırmaq, qaçaqmalçılıq və fırıldaqçılıqla mübarizə aparmaq, gömrük orqanları arasında məlumat mübadiləsini və qarşılıqlı yardımı gücləndirmək məqsədi daşıyır. Braziliya həmçinin gömrük təcrübələrində tarif dərəcəsi kvotaları, antidempinq tədbirləri və əqli mülkiyyət hüquqlarının tətbiqi ilə bağlı mübahisələr kimi bəzi çətinliklər və mübahisələrlə üzləşmişdir. Braziliya bu mübahisələri məsləhətləşmələr, danışıqlar və məhkəmə çəkişmələri, habelə gömrük siyasəti və qaydalarında islahatlar aparmaq və təkmilləşdirmək yolu ilə həll etməyə çalışıb.

Sinqapur iqtisadi böyüməsi və inkişafı üçün beynəlxalq ticarətə əsaslanan kiçik bir ada ölkəsidir. Beləliklə, o, gömrük inzibatçılığının səmərəli, şəffaf və beynəlxalq standartlara və öhdəliklərə uyğun olmasını təmin etməkdə maraqlıdır. Sinqapurun buna nail olmasının yollarından biri treyderlərə gömrük məqsədləri üçün mallarının təsnifatı və qiymətləndirilməsi ilə bağlı məcburi qərarlar almaq mexanizmini təmin etməkdir. Sinqapur 1999-cu ildən bəri Malların Təsnifatı üzrə Harmonik Sistem (HS) Qanununa əsasən malların təsnifatı üzrə məcburi qərarlar təklif edir [2]. HS ticarət edilən

məhsulların müəyyən edilməsi və təsnifləşdirilməsi üçün beynəlxalq standartlaşdırılmış adlar və kodlar sistemidir. Sinqapur Harmonikləşdirilmiş Əmtəələrin Təsviri və Kodlaşdırılması Sistemi haqqında Beynəlxalq Konvensiyanın Razılığa gələn tərəfidir və HS-ni gömrük tariflərində və ticarət statistikasında tətbiq etməyə borcludur. Mallarının HS təsnifatı ilə bağlı məsləhət almaq istəyən treyderlər ərizə forması və məhsul kataloqları, spesifikasiyalar, inqrediyentlər və istehsal prosesləri kimi müvafiq təsdiqedici sənədləri təqdim etməklə, Sinqapur Gömrük İdarəsinə məcburi qərar üçün müraciət edə bilərlər. Hər bir müraciət üçün S$75 rüsum tutulur və məhsulun mürəkkəbliyindən və təqdim olunan məlumatın tamlığından asılı olaraq proses 30 günə qədər çəkə bilər. Verilmiş məcburi qüvvəyə malik qərar üç il müddətində, yaxud HS və ya gömrük qanunvericiliyi dəyişdirilənə və ya ləğv edilənə qədər qüvvədədir (hansı daha tezdir). Sinqapur da Gömrük Aktı çərçivəsində 2018-ci ildən malların qiymətləndirilməsi ilə bağlı məcburi qərarlar təklif edir. Malların qiymətləndirilməsi gömrük rüsumlarının və vergilərinin qiymətləndirilməsi üçün əsas olan idxal mallarının gömrük dəyərinin müəyyən edilməsi prosesidir. Sinqapur 1994-cü il tarixli Tariflər və Ticarət üzrə Baş Sazişin (ÜTT Qiymətləndirmə Sazişi) VII Maddəsinin Tətbiqi haqqında Sazişə uyğun olaraq, Sinqapurun imzaladığı əməliyyat dəyəri metodunu qiymətləndirmə üçün əsas kimi qəbul edir. Əməliyyat dəyəri Sinqapura ixrac üçün satıldıqda, müəyyən düzəlişlərə məruz qaldıqda, mallar üçün faktiki ödənilmiş və ya ödənilməli olan qiymətdir. Mallarının qiymətləndirilməsi ilə bağlı məsləhət almaq istəyən treyderlər ərizə forması və fakturalar, müqavilələr, nəqliyyat xərcləri və əlaqəli tərəflərlə aparılan əməliyyatlar kimi müvafiq təsdiqedici sənədləri təqdim edərək, Sinqapur Gömrük İdarəsinə məcburi qərar üçün müraciət edə bilərlər. Hər bir müraciət üçün S$75 məbləğində rüsum da alınır və əməliyyatın mürəkkəbliyindən və təqdim olunan məlumatın tamlığından asılı olaraq proses 30 günə qədər davam edə bilər [4].

Türkiyə beynəlxalq ticarət üçün strateji mövqeyə malik olan, Avropa, Asiya və Yaxın Şərqi birləşdirən bir ölkədir. Türkiyə Ümumdünya Ticarət Təşkilatının (ÜTT) və Ümumdünya Gömrük Təşkilatının (ÜGT) üzvü kimi gömrük inzibatçılığı və prosedurlarının müasirləşdirilməsi və beynəlxalq standartlara və öhdəliklərə uyğunlaşdırılması üçün müxtəlif islahatlar və tədbirlər həyata keçirir. Türkiyənin qəbul etdiyi tədbirlərdən biri gömrük məqsədləri üçün mallarının təsnifatı ilə bağlı məsləhət istəyən treyderlərə məcburi tarif məlumatlarının (MTM) təqdim edilməsidir. MTM, ÜGT-nin Uyğunlaşdırılmış Sisteminə (HS) uyğunlaşdırılmış Türkiyə Gömrük Tarif Nomenklaturasına əsaslanaraq, konkret məhsulun və ya əməliyyatın tətbiq olunan tarif təsnifatını müəyyən edən gömrük orqanı tərəfindən verilən yazılı qərardır. Belə bir qərar həm gömrük orqanı, həm də ərizəçi üçün hüquqi qüvvəyə malikdir və ticarətçilər üçün əminlik yarada bilir. MTM həmçinin sərhəddə malların rəsmiləşdirilməsini asanlaşdırır, mübahisələr və cəzalar riskini azaldır və gömrük qanun və qaydalarına riayət olunmasını gücləndirir. Türkiyə Gömrük Qanunu və onun icra qaydalarına uyğun olaraq 1999-cu ildən MTM təklif edir. MTM sistemi ərizə prosedurunu, tələb olunan sənədləri və məlumatları, ödənişləri, etibarlılıq müddətini və MTM-nin ləğvi şərtlərini müəyyən edən Gömrük Kommunikesi (Tarif- MTM) No:14 ilə tənzimlənir. MTM əldə etmək istəyən treyderlər ərizə formasını və məhsul kataloqu, spesifikasiyalar, inqrediyentlər və istehsal prosesləri kimi müvafiq təsdiqedici sənədləri təqdim etməklə, MTM vermək səlahiyyətinə malik olan altı Regional Gömrük və Ticarət Müdirliyindən birinə müraciət edə bilərlər. Hər müraciət üçün 75 türk lirəsi rüsum alınır və məhsulun mürəkkəbliyindən və təqdim edilən məlumatların tamlığından asılı olaraq proses 30 günə qədər davam edə bilər [1].

Türkiyədə gömrük sistemində məcburi qərarların qəbul edilməsi mexanizmi ticarətçilər və gömrük orqanları üçün hüquqi müəyyənlik və proqnozlaşdırıla bilənliyi təmin etmək, habelə gömrük qaydalarının vahid tətbiqi və şərhini təmin etmək məqsədi daşıyır. Bununla belə, mexanizm bəzi çətinliklər və məhdudiyyətlərlə də üzləşir, məsələn:

- Gömrük qanunvericiliyinin və prosedurlarının mürəkkəbliyi və müxtəlifliyi, düzgün başa düşmək və tətbiq etmək üçün xüsusi bilik və təcrübə tələb olunması;
- Uyğun olmayan, ziddiyyətli qərarlar və ya təcrübələrlə nəticələnə bilən müxtəlif gömrük orqanları və regionlar arasında uyğunlaşdırma və koordinasiyanın olmaması:
- Gömrük sisteminin səmərəliliyinə təsir göstərə biləcək müraciət, ekspertiza və şikayət proseslərində baş verən gecikmələr və xərclər;

- Aİ və digər ölkələrlə siyasi və iqtisadi əlaqələr, beynəlxalq ticarət sazişləri və mübahisələr, gömrük sisteminin daimi uyğunlaşdırılmasını və tənzimlənməsini tələb edə bilən texnoloji inkişaflar və yeniliklər kimi xarici amillərin təsiri [4].

**Ədəbiyyat**

1.İlkin A. "Kalkınma ve sanayi", İstanbul, "İstanbul Üniversitesi İktisat Fakültesi Yayınları", 2019, 402 s.

2.Keegan W.J., Green M.C. "İthalat ve ihracat Uygulamaları", İstanbul, "Bilim Yayın", 2013, 500 s.

3.Luhmann N. "Refah Devleti'nin Siyaset Teorisi", İstanbul, "Bakış Yayınları", 2022, 279 s.

4.Serin V. "İktisat Politikası", İstanbul, "Alfa Basım Evi", 2021, 300 s.

5.Todaro MP, Smith SC. "Economic Development", Boston, "Pearson Education", 2018, 403 p.

# AZƏRBAYCAN RESPUBLİKASINDA AKSİZ MARKASI STANDARTLARININ BEYNƏLXALQ TƏCRÜBƏ İSTİQAMƏTİNDƏ TƏKMİLLƏŞDİRİLMƏSİ

**SƏBİNƏ SEYİDOVA**
Dövlət Gömrük Komitəsinin Akademiyası
Hüquqşünaslıq
*sabinaseyidova9@gmail.com*
BAKI, AZƏRBAYCAN

**XÜLASƏ**

Aksiz markaları, aksiz markası ilə markalanmalı olan malların üzərinə qoyulan nişanlardır. Bu markalar, müəyyən vergi və məbləğlərin ödənilmiş olduğunu göstərir və əsasən alkoqol və tütün məmulatları kimi əhəmiyyətli məhsulların satışında istifadə olunur. Aksiz markaları, vergilərin effektiv toplanması, böyük həcmli məbləğlərin qanunlaşdırılması və qeyri-qanuni ticarətin aradan qalxması kimi bir çox məqsədlərlə əlaqəlidir. Yeni texnologiyalar, aksiz markalarının müəyyən olunmasını, təsdiqlənməsini və izlənməsini asanlaşdıra bilər. Məsələn, rəqəmsal aksiz markaları, QR kodları, RFID etiketləri və ya blokçeyn texnologiyası kimi texnologiyalar istifadə edilə bilər. Bu texnologiyalar, müəyyən məhsulun nəzərdə tutulmuş vergi və məbləğlərinin ödənilmiş olduğunu təsdiqləmək üçün sürətlə və asanlıqla istifadə edilə bilən dəqiq təsdiqləmə imkanı təmin edir. Yenilikçi texnologiyalar, aksiz markalarının mümkün qədər çoxunun dəqiq olmasını təmin etmək və məhsulların həqiqi və qanuni olmasını, habelə qeyri-qanuni ticarətin aradan qaldırılması üçün önəmli bir vasitədir. Bu texnologiyaların aksiz marka sistemlərinə daxil edilməsi, vergilərin daha effektiv toplanması və qanuni ticarətin artırılması üçün böyük bir potensiala malikdir. Aksiz markası standartlarının inkişaf etdirilməsi və beynəlxalq praktikaya uyğunlaşdırılması qanun pozuntularının effektiv şəkildə aradan qaldırılmasında böyük rola malikdir. Praktiki əhəmiyyəti baxımından hüquq-mühafizə orqanları işçilərinin işinin asanlaşdırılması və operativliyin təmini üçün yeni texnologiyaların əhəmiyyəti vurğulanmalıdır. Tədqiqatın sonunda gəlinən nəticəyə əsasən bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi, beynəlxalq standartlara uyğunlaşma, əhalinin maarifləndirilməsi, hüquq-mühafizə işçilərinin yeni texnologiyalarla təmin edilməsi vacibdir.

Aksiz markası ilə markalanmalı olan malların belə marka ilə markalanması onların qanunvericiliyə uyğun şəkildə vergilərin ödənildiyini və qeydiyyata alındığını müəyyən etmək üçün böyük əhəmiyyətə malikdir. Hazırki dövrün tələblərini nəzərə alaraq, markalarla bağlı standartların daha da təkmilləşdirilməsi bu sahədə baş verən qaçaqmalçılıq, saxta markalardan istifadə və ya ümumiyyətlə belə marka olmadan gətirilməsi kimi qanun pozuntularının qarşısının alınması məqsədinə nail olmaqda vacib amil ola bilər. Azərbaycan Respublikasında aksiz markasına qoyulan tələblər eləcə də istifadə olunan texnologiyaların beynəlxalq təcrübədə istifadə olunan yeni, daha təkmil texnologiyalarla əvəz edilməsi vacibdir. Microsxemlərdən, adi insanlar tərəfindən asanlıqla yaradıla bilməyən xüsusi etiketlərdən istifadə həm qanunsuzluqların belə hal baş vermədən əvvəl müəyyən olunması, qarşısının alınması, həm də hüquq mühafizə orqanlarının işinin asanlaşdırılmasına və daha operativ təşkilinə yol açacaqdır.

Tədqiqatın nəticələrinə əsasən aşağıdakı tövsiyələr tərtib edilmişdir:

- Digər ölkələrin qanunvericiklərinə inteqrasiya ilə aksiz markaları ilə bağlı standartlar, tələblər artırılmalı, aksiz markalarının tətbiqi qaydalarının sərtləşdirilməli, bu sahədə olan qanunvericiliyin təkmilləşdirilməlidir.
- Yeni texnologiyaların tətbiqinə şərait yaradılmalı və hüquq-mühafizə işçilərinin bu texnologiyaların tətbiqi ilə bağlı məlumatlandırılması təmin olunmalıdır.
- Əhalinin aksiz markası ilə markalanmalı olan malların belə marka olmadan gətirilməsinin qadağan edilməsi ilə bağlı hüquq düşüncəsinin formalaşdırılması üçün maarifləndirici tədbirlər görülməlidir.

**ƏDƏBİYYAT SİYAHISI**

1. WHO Framework Convention on Tobacco Control Geneva, 21 May 2003

2. Nicola Sudán. The Evolution in the Role of Excise Tax Stamps for Specific Consumption Goods

3. Combatting illicit trade in tobacco products: Commissioner Andriukaitis' Statement on the EU's adoption of an EU-wide track and trace system. European Commission Press Release, December 15, 2017.
http://europa.eu/rapid/press-release_STATEMENT-17-5269_en.htm

4. How to design and enforce tobacco excises? International Monetary Fund, October 2016
https://www.imf.org/en/Publications/Fiscal-Affairs-Department-How-To-Notes/Issues/2016/12/31/How-to-Design-and-Enforce-Tobacco-Excises-44352

5. Paul Dunn, 2022. Holography: stamping its authority on tobacco anti-counterfeiting
https://ihma.org/holography-stamping-its-authority-on-tobacco-anti-counterfeiting/

6. H.Gitte.2024. Gömrük hüquqpozmaları: tərif, cəza, məhdudiyyət müddəti
https://www.bussgeldkatalog.org/zollvergehen/

# CƏNUBİ QAFQAZDA İTTİFAQI MÜMKÜNMÜ?

**Şükürlü Rahib Qasım oğlu**
Dövlət Gömrük Komitisənin Akademiyası
3-cü kurs, hüquqşünaslıq ixtisası

***Xülasə***

Biz tarixi inkişaf prosesinə baxdıqda bir çox ittifaqlar, birliklər görə bilərik. Bu ittifaqların yaranma səbəbi bilindiyi kimi bir və ya bir neçə dövlət üçün təhlükə olacaq düşməni məğlub etmək, yox etmək üçün istifadə edilib. Ümumən desək hamısı bir hərbi birlik və ya ittifaq olubdur və sadəcə o an olan mövcud təhlükəni aradan qaldırmaq üçün istifadə edilib. Yəni uzunmüddətli və sağlam təməlli deyildilər Hətta mövcud düşmən yox edildikdən sonra düşmənə qarşı olan ittifaq daxilindəki dövlətlər, xalqlar özlərini bir-birlərinə qarşı düşmən görüb bu dəfə də bir-birləri ilə savaşırdılar. Lakin günümüzə bu "İttifaq" anlayışına baxsaq, əsaən uzunmüddətli, sağlam təməllər əsasında olan və əsasən vahid düşmənə qarşı deyil də, iqtisadi birliyi nəzərdə tutan və bu ittifaqda iştirak edən dövlətlərin iqtisadi gücünü artırılmasını nəzərdə tutan bir sistemə çevrilmişdir.

Başqa bir tərəfdən baxsaq, bu birliklərin qurulması üçün suverenliyin verilməsi, suvernlikdən güzəştə gedilməsi səbəbi ilə bəzi dövlətlər, xalqlar qarşıdır və hətta "Qanla qazanılmış suverenlik" sırf iqtisadi maraqlar üçün verilməsi istənilmir.

Bütün bu fikirlərin ətrafında Cənubi Qafqazda bir ittifaq mümkündür? Dövlətlərin konstitusiya, qanunları belə birlik üçün uyğundurmu? Baş verən son Azərbaycan və Ermənistan arasındakı müharibədən sonra dövlətlər yeni yola çıxmaq tərəfdarındadırlarmı?

Summary

When we look at the historical development process, we can see many alliances and unions. As is known, the reason for the formation of these alliances was to defeat and destroy the enemy who would be a threat to one or more states. Generally speaking, it was all a military union or alliance and was used only to eliminate the current threat at that moment. That is, they did not have a long-term and sound foundation. Even after the elimination of the existing enemy, the states and peoples within the alliance against the enemy saw themselves as enemies and fought with each other this time. However, if we look at the concept of "Union" today, it has turned into a system based on long-term, sound foundations and not against a common enemy, but rather economic union and increasing the economic power of the states participating in this union.

If we look at it from another side, some states and peoples are against the granting of sovereignty for the establishment of these unions, due to the compromise of sovereignty, and even "Blood-earned sovereignty" is not wanted to be given purely for economic interests.

Is an alliance possible in the South Caucasus around all these ideas? Are the constitutions and laws of the states suitable for such a union? After the recent war between Azerbaijan and Armenia, are the states in favor of starting a new path?

Краткое содержание

Когда мы смотрим на процесс исторического развития, мы видим множество союзов и союзов. Как известно, целью образования этих союзов была победа и уничтожение противника, который представлял бы угрозу одному или нескольким государствам. По большому счету, все это было военным союзом или союзом и использовалось лишь для устранения действующей в тот момент угрозы. То есть они не имели долговременной и прочной основы.Даже после ликвидации существующего врага государства и народы, входящие в союз против врага, видели себя врагами и на этот раз воевали друг с другом. Однако, если мы посмотрим на концепцию «Союза» сегодня, она превратилась в систему, основанную на долгосрочных, прочных основах и направленную не против общего врага, а против экономического союза и увеличения экономической мощи участвующих в нем государств. союз.

Если посмотреть на это с другой стороны, то некоторые государства и народы выступают против предоставления суверенитета для создания этих союзов, по причине компромисса суверенитета, и даже «кровно заработанный суверенитет» не хотят давать чисто из экономических соображений. интересы.

Возможен ли альянс на Южном Кавказе вокруг всех этих идей? Подходят ли конституции и законы штатов для такого союза? После недавней войны между Азербайджаном и Арменией, выступают ли государства за начало нового пути?

**1.1 Giriş- İttifaqların Tarix**

Ümumən tarixə baxsaq, ittifaqların qurulma səbəbi zəif dövlətlərin özlərindən daha güclü dövlətləri məğlub etmək və ya hər hansı bir dövlətin qurulması üçün bir ittifaq ətrafında birləşmələrindən ibarət idi. Çünki bilindiyi kimi mövcud təhlükəni ortadan qaldırmaq və ya özləri üçün baş verəcək gələcək fəlakətləri yox etmək onların məqsədi idi. Hətta bu ittifaqların güclü bir təməli, hüquqi əsasları olmadığı üçün tez bir zamanda dağılır və tarixdən silinirdilər. Səbəb isə bu ittifaqlar, birliklər gələcək üçün yox sadəcə o an mövcud təhlükədən xilas olmaq idi..

Müasir dövrümüzə baxdıqda İttifaqlar əsasən möhkəm təməllər əsasında və iqtisadi maraqlar üçün qurulur və ya qurulmuşdur. Çünki artıq müasir dövrdə dövlətlərin əsas məqsədləri əhalinin iqtisadi rifahı yüksəltmək və öz xalqlarına daha da yaxşı yaşamaq imkanın təmin etməkdir. Dövlətlərin gücləri əsasən hal-hazırda hərbi deyil, iqtisadi güclə ölçülür. Bir dövlətin iqtisadiyyat nə qədər güclü olsa, nə qədər pulu dəyərli olsa, ixracı yüksək olsa, o hal-hazırda güclü dövlət və ya inkişaf etmiş dövlət hesab olunur. Günümüz inkişaf etmiş dövlətlərə baxdıqda onlar hərbi gücünə deyil, iqtisadiyyatları güclü, əhalinin həyat və sağlamlıq səviyyəsi, təhsil səviyyəsi yüksək və hər il ortalama ÜDM 20-30 min ABŞ dolları olduğu üçün inkişaf etmiş dövlət statusu alırlar.

***Beynəlxalq valyuta fondunun son rəmi məlumatlarına görə 40 inkişaf etmiş dövlət var. Bu gün mövcud olan inkişaf etmiş ölkələrin təxmini 71.1% Avropada, 15.8%-i Asiyada, 5.3%-i Şimali Amerikada, 5.3%-i isə Okeaniyadadır.***

**1.2 Müasir dövrümüzdə ittifaqlar**

Hal-hazırda müasir dövrümüzə baxdıqda ittifaq anlayışına təbii ki, ən mükəmməl uyğun gələn Avropa İttifaqıdır. Avropa İttifaqının sahib olduğu İttifaq hüququ bir dövlət üstü hüquqdur və onun daxilindəki sistem sanki bir dövlət quruluşu kimi xarakterizə edilə bilər. Dövlətlər orada öz suverenliklərinin bir hissəsini ittifaqa verərək onun müəyyən struktur bölmələrinin, yəni Avropa İttifaq Məhkəməsinin, Şurasının, Komissiyasının və ya Parlamentinin yaranmasına yol açırlar. Hal- hazırda ittifaq 27-i üzv dövlətdən ibarətdir. Dövlətlər Avropa İttifaqında İttifaq hüququna tabe olmalı, təsis müqavilələrindən önə çıxan çıxan öhdəlikləri də yerinə yetirməlidirlər.

İttiaqın tarixinə baxdıqdan bu fikir Robert Şuman o zamankı Fransa xarici işlər naziri tərəfindən irəli sürülmüşdür. Robert Şumanın fikri bu idi ki, dövlətlər üstü qurum və ya birlik yaradılsın və biz bu birliyin ətafında ölkələrimizin suvernliklərinin də bir hissəsini güzəşt edərək mövcud 2-ci dünya müharibəsinin gətirdiyi yıxıntılardan, iqtisadi çöküşdən çıxaq. Nəticədə 1951-ci il Paris müqaviləsi ilə Avropa Kömür və Polad birliyi və ardınca 1957-ci il Roma müqaviləsi ilə də Avropa İqtisadi birliyi və Atom Enerjisi üzrə Avropa Birliyi yaradıldı. Daha sonra bu ittifaqların hə birinin öz idarə etmə orqanı, öz institutları var idi ki, bu ümumən hər 3 birliyin idarə edilməsinə çətinlik yaradırdı. Bu səbəbdən onların idarə edilməsinin mərkəzi və sistemli həyata keçirə bilmək üçün 1965-ci il Brüssel müqaviləsi imzalandı. Nəticədə vahid institut bölmələr, vahid struktur sistemi yaradıldı. Daha sonra 70 və 80-ci illərdə mövcud olan yuxarıda saydığım 3 birliyi də əvəz edə biləcək vahid bir inteqrasiya təşkilatı yaratmaq fikrini reallaşdırmq üçün 1992-ci ildə Maastrix müqaviləsi imzalandı və hal-hazırda bizim bildiyimiz Avropa İttifaqı yaradıldı. Lakin mövcud 3 birlik hələ də saxlanıldı. Daha sonra isə həmin o 3 dayaq, yəni AKPB, AİB və AEAB 2007-ci il Lissabon müqaviləsi ilə ləğv edildi.

***Nəticə olaraq deyə bilərik ki, mövcud Avropa İttifaqı çox uzun bir prosesi keçmiş və bu proseslər əsasında ittifaqın hüquqi əsası müəyyən edilmişdir.***

Ancaq sonda SSRİ də bu ittifaq anlayışına daxil edə bilərik. Hər nə qədər Aİ kimi bir demokratik bir sistemi olmasa da, totalitar bir sistemlə idarə olunsa da, o da Aİ kimi bir quruluş bir idarə etmə sisteminə malik. Doğrudur SSRİ-nin gələcəyi ilə bağlı planlar tək bir dövlət-Rusiya tərəfindən alınsa da, Aİ-da ittifaqla bağlı gələcək planlar üzv dövlətlərin birgə razılığı ilə alınır. Lakin bununla belə müəyyən idarə etmə strukturu, sistemi baxımından hər iki ittifaqın baxımından oxşarlıqları vardır.

**2.1 Cənubi Qafqaz ölkələri belə bir ittifaqa hazırdırmı?**

**Hüquqi Aspekt**

İlk öncə qeyd edək ki, hər 3 ölkənin də konstitusiyasında dövlətlərin müstəqil, suveren olduğu vurğulanılır. Bu isə, təbii ki, bir ittifaq yolunda, ümumən desək, suverenliyin ötürülməsi baxımından bir maneədir. Yuxarıda qeyd edildiyi kimi suverenliyin bir hissəsinin güzəştə gedilməsi ittifaqın yaradılması üçün əsasdır. Bəs bu maneə necə aradan qaldırıla bilər və ya dövlətlər bir ittifaq yaradılması üçün konstitusiyalarında müəyyən yenilənməyə gedə bilər? Bu suallar cavab tapmaq üçün biz müraciət edirik 1992-ci ildə qəbul edilən və Avropa İttifaqının yaranmasına səbəb olan Maastrixt müqaviləsinə müraciət edə bilərik. Çünki Maastrixt müqaviləsi qəbul edilərkən dövlətlərin suverenliyinin ciddi şəkildə məhdudlaşdırılmasını nəzərdə tutduğu üçün dövlətlər öz konstitusiyalarında dəyişikliyə getmişdir. Avropa İttifaqına üzv dövlətlərinə baxdıqda da onların konstitusiyalarında suverenliyin ötürülməsinə aid bir neçə müddəa yer almaqdadır. Almaniyanın konstitusiyasının 23 və 24-cü maddələrində "suverenliyin ötürülməsinə" dair, Fransanın konstitusiyasının giriş hissəsinə baxdıqda da "suverenliyin məhdudlaşdırılmasına" dair müdəalar olduğunu görürük.

Ümumən belə bir nəticə çıxara bilərik ki, suverenliyin ötürülməsi və ya məhdudlaşdırılması ilə bağlı belə müddəaların konstitusiya əlavəsi müasir dövr üçün imkansız deyildir. Amma, təbii ki, bilindiyi üzrə hər üç dövlət konstitusiyaya əlavə və dəyişiklikləri referendumla həyata keçirilir. Buna münasib həm 1988-ci ildən başlayıb Qarabağ işğalı ilə nəticələnən, həm də 44 günlük vətən savaşımızda, həm də 2023-ci ilin 19-20 sentyabrda həyata keçirdiyi antiteror əməliyyatları mövcud siyasi münasibətləri 2 ölkə arasında qoparmışdır. Bu səbəbdən birləşmə üçün siyasi aspektdə də toxunmaq gərəkdir.

**Siyasi Aspekt**

Yuxarıda sadalananlara əsasən biz qeyd edə bilərik ki, 2 dövlət arasında ittifaq deyil, normal bir münasibətin də qurulması qeyri-mümkündür. Lakin buna başqa bir aspektdən yenidən Avropa İttifaqı aspektdən baxa bilərik. Belə almanlar və fransızlar sadəcə 1-ci və 2-ci dünya müharibələrində deyil, hər iki xalq daha vahid Almaniya dövləti yaradılmamışdan öncə də çox sayılı savaşlar vermişdirlər. Lakin 2-ci dünya müharibəsindən sonra onun yıxıntılarını yox etmək,qitədə iqtisadi yüksəliş əldə etmək, yenidən baş verə biləcək qisasçılıq hissinin və müharibə təhlükəsinin qarşısını almaq üçün birləşməni ən yaxşı yol kimi mənimsədilər, ardınca ikinci dünya müharibəsindən sonra 1951 və 1957-ci illərdə 3 ittifaq yaradıldı-AKPB, AİB və AEAB. Bu nöqteyi-nəzərdən yanaşsaq həm gələcəkdə baş verə biləcək fəlakətlərin qarşısını almaq, həm də regionun iqtisadi cəhətdən dirçəlməsini təmin etmək üçün bir ittifaqda birləşmək mümkün və hətta deyə bilərik ki, məcbur da ola bilərik. Bu səbəbdən birləşmənin əhəmiyyətini xalqa çatdırmaq yolu ilə gələcəkdə baş verəcək itkilərin qarşısını almaq mümkündür.

Mövcud Gürcüstan amilini də unutmaq olmaz. Hər iki dövlətlə, yəni Azərbaycan və Ermənistan münasibətləri yaxşı olsa da, Rusiya dövləti tərəfindən Abxaziya və Osetiyanın işğal edilməsi, yəni ərazi bütövlüyünün təmin edilməməsi maneə təşkil edir. Çünki əgər bir ittifaq yaradılacaqsa, ordakı dövlətlərin ərazi bütövlüyü təmin olunmalıdır, çünki bu gələcəkdə bir çox problemlərə yol açа bilər.

***Yuxarıda sadalananlara əsasən bir alternativ yol mümkündürmü?***

**Alternativ Yol Aspekti**

İlk öncə qeyd edək ki, 3 dövlətin konstitusiyasında qeyd edilib ki, beynəlxalq müqavilələr qanunlardan üstündür. Bunu Azərbaycan Respublikasının konstitusiyasının 151-ci maddəsində, Gürcüstan Respublikasının konstitusiyasının 4-cü maddəsinin 5-ci hissəsində və Ermənistan Respublikasının konstitusiyasının 6-cı maddəsinin 4-cü hissəsində beynəlxalq müqavilələr qanunlardan üstünlüyünün vurğulandığını görə bilərik. Bu amildən necə istifadə edə bilərik? Tarixə nəzər yetirsək, görə bilərik bu 3 dövlət SSRİ zamanı Zaqafqaziya Sovet Sosialist Respublikalarının Federativ İttifaqının daxilində birləşdiyini görürük. Təbii ki, bu SSRİ bir işğal yolu idi. Amma biz bu nəzərdə tutduğumuz Cənubi Qafqazda bir İttifaq yaranana qədər Zaqafqaziya Sovet Sosialist Respublikalarının Federativ İttifaqının zamanında imzalanan dəmir yolu xətlərinin birləşməsi və ya iqtisadi əlaqələrin genişlənməsi haqqında müqavilələr istifadə və ya daha mükəmməl, daha müasir normalar uyğun müqavilə hazırlayıb imzalaya bilərək. Bu baxımından hər 3 dövlət suverenliyin ötürülməsindən qaçaraq daha İttifaq səviyyəsinə qalxmadan iqtisadi əlaqələrin genişlənməsini və

birləşməsini təmin etmək haqqında müqavilələr imzalaya bilər və gələcəkdə bir İttifaqda birləşməyin yolun açа bilər. Çünki ittifaqlar bir gündə qurulmur.

Həmçinin Prezident İlham Əliyevin daim qeyd etdiyi Zəngəzur koridoru bu yolla açılar və sadəcə Cənubi Qafqazın 3 dövləti olan Azərbaycan, Ermənistan və Gürcüstün deyil, Türkiyə Respublikası da bundan yararlanacaqdır. Bu yolla bölgə inkişaf edəcək, müharibəsiz bir sistem yarana biləcəkdir.

**2.2 Nəticə**

Yuxarıda qeyd edilənlərə əsasən gələcəkdə bir Cənubi Qafqaz İttifaqı mümkündür. Lakin bu çox uzun və ağrılı bir proses olacaqdır. Hüquqi aspektdən məsələyə nəzər yetirsək, bu maneə aşmaq və öhdəsindən gəlmək mümkündür. Siyasi aspektdən isə böyük əngəllər vardır və bu əngəllər səbəbindən hər 3 dövlət üçüncü bir yol, alternativ yol izləyərək bunu aşmalı, daha sonra hüquqi və siyasi məsələləri həll edərək bu ittifaqın gələcəkdə yaradılması artıq qeyri-mümkün olmayacaqdı. Ancaq öncədən də qeyd etdiyimiz kimi bu bir ilə, beş ilə yox, bəlkə 50 və hətta da 100 ilə nəticələnək bir prosesdir. Bu səbəbdən bu ittifaq yolunda addımlar sadə və digər hüquqi və siyasi aspektlər gözlənilərək atılmalıdır.

**İSTİFADƏ OLUNAN MƏNBƏLƏR:**

Azərbaycan Respublikasının konstitusiyası

Ermənistan Respublikasının konstitusiyası

Gürcüstan Respublikasının konstitusiyası

Avropa Ittifaqının Yaranması Və Avropa İttifaqı Hüququnun Təşəkkül Tapması-Rahim Məmmədov

Avrupa Birliği Hukuku Ve Milli Egemenliğin Devri-Gürsel Özkan

İlke Göçmen, Sanem Baykal- Avrupa Birliği

Azərbaycan Tarixi 7 cildlik 6-cı cildi

# XARİCİ TİCARƏTDƏ GÖMRÜK REJİMİ

***İbrəhimov Yasər Yaqub oğlu***

*Azərbaycan Memarlıq və İnşaat Universiteti*

*Magistratura mərkəzi fakültəsi Biznesin təşkili və idarə olunması (Marketinq üzrə) ixtisası*

*yaser.ibrahimovv@gmail.com*

*Azərbaycan, Bakı.*

**Xülasə**

Məqalədə xarici ticarətin inkişafının ölkə iqtisadiyyatına təsirindən bəhs olunur. Ölkələrin xarici ticarətin tənzimlənməsinə mühüm töhfə verdikləri əks olunur. Məqalədə xarici ticarətin tənzimlənməsində idxalçılara gömrük tənzimlənməsi ilə bağlı xərclərin kompensasiyasına xidmət edən paratarif tədbirlərinin tətbiqindən də bəhs edilir. Bundan əlavə, ticarət siyasəti, gəlir əldə etmək və ya yerli istehsalın qorunması məqsədilə əlavə vergi və rüsumların tətbiqinə toxunur, gömrük rüsumlarının və yığımlarının hesablanması üçün inzibati gömrük dəyərinin müəyyən edilməsində dəqiq gömrük qiymətləndirməsinin vacibliyini vurğulayır.

**Açar sözlər:** xarici ticarət, gömrük, rüsum, rejim

**Summary**

The article talks about the impact of the development of foreign trade on the country's economy. It is reflected that the countries make an important contribution to the regulation of foreign trade. The article also mentions the application of paratariff measures, which serve to compensate importers for costs related to customs regulation, in the regulation of foreign trade. In addition, the trade policy addresses the imposition of additional taxes and duties for the purpose of generating revenue or protecting local production, emphasizing the importance of accurate customs valuation in determining the administrative customs value for calculating customs duties and charges.

**Key words:** foreign trade, customs, duty, regime

## Giriş

Getdikcə bir-birinə bağlı olan dünyada millətlər geniş ticarət fəaliyyətləri ilə məşğul olurlar. Gömrük rejimlərini başa düşmək malların idxalı və ixracı ilə məşğul olan müəssisələr üçün çox vacibdir. Gömrük prosedurları, tariflər, vergilər və sənədləşdirmə tələbləri də daxil olmaqla, ölkəyə daxil olarkən və ya ölkədən çıxanda mallarla necə davranılacağını diktə edir.

Gömrük qaydalarına riayət etmək bizneslər üçün cərimələrdən, gecikmələrdən və hətta malların ələ keçirilməsindən qaçmaq üçün vacibdir. Gömrük rejimini başa düşmək biznesə malların düzgün bəyan edilməsi, rüsumların və vergilərin ödənilməsi və idxal/ixrac məhdudiyyətlərinə riayət daxil olmaqla bütün qanuni tələblərə cavab verməsini təmin etməyə kömək edir.

Gömrük rejimləri ölkənin ticarət siyasətini və prioritetlərini əks etdirir. Gömrük qaydalarındakı dəyişikliklər bazara çıxışa, rəqabət qabiliyyətinə və ticarət balansına təsir edərək beynəlxalq ticarət dinamikasına təsir göstərə bilər. Bu rejimləri başa düşmək həm bizneslər, həm də siyasətçilər üçün ticarət razılaşmaları, tariflər və ticarət maneələrini effektiv şəkildə idarə etmək üçün çox vacibdir.

Xarici ticarətdə gömrük rejimi mövzusu biznes, ticarət siyasəti, risklərin idarə edilməsi, tədarük zəncirinin səmərəliliyi, beynəlxalq biznes strategiyası, inkişaf edən tendensiyalar və texnologiyalar üçün əhəmiyyətli təsirləri səbəbindən aktualdır. Gömrük rejimlərini başa düşmək və səmərəli şəkildə naviqasiya etmək bizneslərin bugünkü bir-biri ilə əlaqəli və dinamik qlobal iqtisadiyyatda uğur qazanması üçün vacibdir.

## Material və metod

İqtisadçılar beynəlxalq ticarətin xarici iqtisadi qarşılıqlı əlaqələrin zirvəsini təmsil etdiyini geniş şəkildə qəbul edirlər. Müəyyən hesablamalara görə, hazırda iqtisadçılar qlobal iqtisadi əlaqələrin 80%-ə qədərini ticarətlə əlaqələndirirlər. Xarici ticarət hər bir ölkənin iqtisadiyyatı üçün mühüm əhəmiyyət kəsb edir [1, s. 108].

Qlobal ticarət dünya miqyasında dövlətlər arasında əmək məhsullarının (mallar, xidmətlər və əqli mülkiyyət daxil olmaqla) mübadiləsinə aiddir. O, bütün dövlətlər tərəfindən qlobal miqyasda aparılan xarici ticarətin bütövlüyünü əhatə edən beynəlxalq əmtəə-pul münasibətlərinin sahəsini təşkil edir. Dünya ticarəti iki ziddiyyətli prosesdən yaranır: ixrac və idxal əməliyyatları. Qlobal ticarətdə əsas oyunçulara xarici ticarət müəssisələri, millətlər, ölkələr blokları və adətən ixracatçılar və idxalçılar kimi istinad edilən şəxslər daxildir.

Xarici ticarətin tənzimlənməsi dövlətin bilavasitə vəzifəsidir, istehsal və istehlak arasında müxtəlif növ tarazlıqları saxlamaq məqsədi ilə həyata keçirilir. Belə olan halda dövlətin qanunvericilik aktlarında təsbit olunmuş müəyyən "oyun qaydaları"nın yaradılması təbiidir. Hazırda bir çox ölkələrdə xarici ticarət proseslərini demək olar ki, tam həcmdə tənzimləyən qanunvericilik bazası yaradılmışdır.

Xarici iqtisadi fəaliyyətin tənzimlənməsinin qeyri-tarif üsulları beynəlxalq hüquq çərçivəsində geniş şəkildə araşdırılan və qlobal iqtisadiyyata aid hüquqi mexanizmləri əhatə edir. Bu mexanizmlərə ticarət müqavilələri və çərçivələri daxildir.

İkitərəfli qaydada dövlətlər arasında ticarət əlaqələri müvafiq qanunverici orqanlar tərəfindən müzakirə edilən və ratifikasiya edilən ticarət müqavilələri ilə tənzimlənir. Bu müqavilələr adətən beş ildən on ilə qədərdir və vaxtaşırı nəzərdən keçirilməsini tələb edir. Azərbaycan Respublikası qanunvericiliyinin 6-cı maddəsində göstərilir ki, dövlətlərarası müqavilələrdə göstərilən şərtlər gömrük işinə dair daxili qanunvericilikdə nəzərdə tutulmuş şərtlərdən fərqli olduqda, dövlətlərarası müqavilələrin şərtləri üstünlük təşkil edir. Ticarət müqavilələri dövlətlərarası münasibətlərin formalaşmasında mühüm əhəmiyyət kəsb edir və ikitərəfli ticarət razılaşmaları üçün əsas çərçivə rolunu oynayır. Qlobal ticarət praktikasında beynəlxalq hüquq prinsiplərinə uyğunluq mütləqdir [4].

Tədqiqatlar göstərir ki, beynəlxalq ticarəti tənzimləyən əsas çərçivələr aşağıdakılardır [3, s. 71]:

*"Əlavə rejim"* beynəlxalq ticarət müqavilələrində razılığa gələn dövlətlərə bu şərtləri hüquqi cəhətdən gücləndirərək imtiyazların verilməsini vurğulayır. Hər bir dövlətin hazırda istifadə etdiyi və ya gələcəkdə istifadə etməyi planlaşdırdığı bu rejim Ümumdünya Ticarət Təşkilatının prinsipləri çərçivəsində təsbit edilmiş və qlobal miqyasda ədalətli ticarət rejiminin qurulması üçün təməl daşı rolunu oynayır.

*"Milli rəftar prinsipi"* dövlətlərarası iqtisadi münasibətlərə aiddir, burada dövlət öz vətəndaşları və ya qurumları ilə müqayisədə xarici ölkələrdən olan fiziki və hüquqi şəxslərə daha az əlverişli rejim tətbiq edir. Beynəlxalq təcrübə çox vaxt öz üzv ölkələrinə üstünlük verən milli rejim inteqrasiya qruplarının istifadəsini müşahidə edir. Bundan əlavə, Birləşmiş Millətlər Təşkilatına bağlı beynəlxalq iqtisadi təşkilatlar zaman-zaman bu cür sazişlərdən ədalətli və ayrı-seçkilikdən kənar rejimlər konsepsiyasını qəbul edirlər. Lakin qlobal praktikada bu anlayışların ümumi razılaşdırılmış tərifi yoxdur, onların tətbiqi ilk növbədə ticarət və digər iqtisadi sahələrdə ədalətsizliklərə aiddir.

Qlobal dövlətlər arasında ikitərəfli ticarət sazişləri çərçivəsində ən əlverişli rejimin təmin edilməsi prinsipi Ümumdünya Ticarət Təşkilatı tərəfindən universal standart kimi müdafiə olunur.

İkitərəfli ticarət əlaqələri dövlətlər arasında xarici malların, xidmətlərin, kapitalın, fiziki və hüquqi şəxslərin ölkənin sərhədləri daxilində ticarətini diktə edən müqavilələrlə tənzimlənir. Bu müqavilələr ya daha əlverişli rejimə, ya da ticarət məqsədləri üçün mənşə ölkəsini müəyyən edən milli rejimə əməl edə bilər. Ümumdünya Ticarət Təşkilatı tərəfindən beynəlxalq ticarət üçün ən uyğun çərçivə kimi tanınan daha əlverişli rejim universal əhəmiyyətə malikdir. Müasir dövrdə beynəlxalq ticarət fəaliyyətinin tənzimlənməsinin, xüsusən idxal-ixrac əməliyyatları zamanı gömrük nəzarəti ilə bağlı kateqoriyalara ayrılması mühüm əhəmiyyət kəsb edir ki, bu da dövlətlərin xüsusi diqqət yetirdiyi bir sahədir [2, s. 93].

Xarici ticarətin tənzimlənməsində paratarif tədbirlərinin tətbiqi özlüyündə unikaldır. Müxtəlif xalqların tarixi qeydləri boyunca, paratarif tədbirləri adətən mallar üzərində gömrük tənzimləmələri ilə bağlı xərcləri idxalçılara kompensasiya etmək üçün inkişaf etmişdir. Nəticə etibarı ilə, dövlətlərin eyni zamanda gömrük rüsumlarını və onlarla əlaqəli funksional gəlirləri azaltmaqla büdcə gəlirlərini artırmaq vasitəsi kimi paratarif tədbirlərinə meyl etməsi təbiidir. Gömrük orqanları ödəniş proseslərini sadələşdirmək və idxal edən ölkənin qurumlarının maliyyə maraqlarını qorumaq üçün idxal olunan mallara sərhəd vergiləri qoyur. Tipik olaraq, bu vergilər və rüsumlar alqı-satqı müqavilələri tərtib edilərkən tərəfdaşlar tərəfindən razılaşdırılan şərtlə idxalçı tərəfindən ödənilir [4].

Ticarət siyasətinin məqsədləri, gəlirlərin yaradılması və ya yerli istehsalın qorunması üçün tətbiq edilən əlavə vergilər və rüsumlar paratarif tədbirləri kateqoriyasına aiddir. Bundan başqa, əlavə rüsumlar idxal olunan mallara görə gömrük rüsumları və vergilər üzərinə tutulan yerli ekvivalentlərdən fərqli ödənişlərə aiddir. Bunlar xarici valyuta köçürmə vergiləri və nəqliyyat vasitələri vergiləri kimi xarici ticarətlə bağlı xüsusi fəaliyyətləri maliyyələşdirmək üçün nəzərdə tutulub.

Qeyd edək ki, daxili bərabərləşdirmə vergiləri və rüsumlar idxalçı ölkə daxilində yerli istehsal mallarına tətbiq edilən dolayı vergilərə ekvivalent kimi qəbul edilir. Bunlara aksizlər, emissiya haqları, əmtəə vergiləri və digər inzibati ödənişlər daxildir. Bərabərləşdirici vergi və yığımların tətbiqinin məqsədi həm xarici, həm də yerli mallar üçün vahid vergi rejiminin yaradılmasıdır. Nəticə etibarilə, gömrük rüsumlarının və yığımlarının hesablanması üçün inzibati gömrük dəyərinin müəyyən edilməsində dəqiq gömrük qiymətləndirilməsi böyük əhəmiyyət kəsb edir.

**Nəticə**

Xarici ticarətin ayrı-ayrı iqtisadiyyatlar üçün əhəmiyyətini qiymətləndirməmək olmaz, çünki o, əmtəələri, xidmətləri və əqli mülkiyyəti əhatə edən xalqlar arasında əmək məhsullarının mübadiləsini asanlaşdırır. Xarici ticarətin tənzimlənməsi dövlətlərin əsas vəzifəsidir və qanunvericilik çərçivəsində istehsal və istehlak arasında müxtəlif tarazlıqları qoruyub saxlamaq məqsədi daşıyır. Bir çox ölkələr xarici ticarət proseslərini effektiv şəkildə tənzimləmək üçün hərtərəfli qanunvericilik bazaları yaratmışdır.

Ticarət sazişləri və çərçivələr kimi qeyri-tarif üsulları beynəlxalq ticarət dinamikasının formalaşmasında həlledici rol oynayır və beynəlxalq hüquq sahəsində geniş şəkildə öyrənilir. Dövlətlər arasında müqavilələrlə tənzimlənən ikitərəfli ticarət əlaqələri ticarət fəaliyyətləri üçün strukturu təmin edir, müqavilələr adətən beş ildən on ilə qədər davam edir və vaxtaşırı nəzərdən

keçirilməsini tələb edir. Bu sazişlər ikitərəfli ticarət əlaqələrinin əsasını təşkil edir və beynəlxalq hüququn prinsipləri ilə tənzimlənir.

Beynəlxalq ticarət fəaliyyətinin effektiv tənzimlənməsi xalqlar arasında ədalətli və davamlı iqtisadi münasibətlərin inkişafı üçün vacibdir. Ticarət sazişləri və paratarif tədbirləri də daxil olmaqla müxtəlif tənzimləmə mexanizmləri qlobal ticarət dinamikasının mürəkkəbliyini əks etdirir. Millətlər beynəlxalq ticarətin incəliklərində naviqasiya etməyə davam etdikcə, müəyyən edilmiş prinsiplərə və çərçivələrə sadiqlik ədalətli ticarət təcrübələrini təşviq etmək və bütün dünyada iqtisadi rifahı təşviq etmək üçün əsas məsələ olaraq qalır.

**Ədəbiyyat siyahısı**

5. Məmmədli M., "Xarici ticarət və onun tənzimlənməsi zərurəti" // AMEA-nın xəbərləri, 2020, 106-112 s.

6. Şəkərəliyev A.Ş., Şəkərəliyeva Z.A., "Gömrük işinin təşkili və idarə edilməsi", Dərs vəsaiti. Bakı: "İqtisad Universiteti" Nəşriyyatı, 2015, 168 s.

7. Şəkərəliyev A.Ş., Yadulla qızı Y.M., Aslanova M.M., "Azərbaycan Republikasinin xarici iqtisadi fəaliyyətində gömrük işinin rolu", Metodiki vəsait, Bakı: İqtisad Universiteti Nəşriyyatı, 2016, 150 s.

8. https://azpromo.az/az/page/ixracat/xarici-bazara-cixis

# BEYNƏLXALQ TICARƏT MÜQAVILƏSI

**Doktorant, Dilbər İskəndərova**
İstanbul Universiteti
Sosyal Elmlər İnstitutu
Hüquq kafedrası
dilbar.iskandarova@gmail.com
İstanbul, Türkiyə

**h.ü.f.d. Hakim Əzizov**
Dövlət Gömrük Komitəsinin Akademiyası
Hüquq və humanitar elmlər kafedrasının müdiri
Bakı, Azərbaycan

**Xülasə**

Beynəlxalq ticarət müqavilələri beynəlxalq ticarət əlaqələrinin əsasını təşkil edir. Beynəlxalq ticarəti müxtəlif dövlətlərin vətəndaşlığı olan və ya müxtəlif ölkələrdə yaşayış yeri, biznes mərkəzləri və ya daimi yaşayış yeri olan fiziki və hüquqi şəxslər arasında mal və xidmətlərin mübadiləsi kimi ifadə edə bilərik. Beynəlxalq kommersiya müqavilələri müxtəlif dövlətlərin vətəndaşlığına malik olan və ya müxtəlif ölkələrdə yaşayış yeri, biznes mərkəzi və ya daimi yaşayış yeri olan iki və ya daha çox fiziki və ya hüquqi şəxs arasında biznes fəaliyyətini həyata keçirmək məqsədi ilə hüquqi əlaqə yaratmaq, dəyişdirmək və ya ləğv etmək üçün istifadə olunan kommersiya xarakterli qarşılıqlı və qarşılıqlı iradə bəyannaməsi ilə edilən hüquqi əməliyyatdır.

**Açar sözlər:** müqavilə, ticarət hüququ, beynəlxalq ticarət sazişləri, Vyana konvensiyası, doktrina, faiz, Beynəlxalq Kommersiya Məhkəməsi.

**Содержание**

Международные торговые соглашения являются основой международных торговых отношений. Международную торговлю можно определить как обмен товарами и услугами между физическими и юридическими лицами, которые являются гражданами разных государств или имеют место жительства, бизнес-центры или постоянное место жительства в разных странах. Международные коммерческие договоры с целью установления, изменения или прекращения правоотношений между двумя или более физическими или юридическими лицами, имеющими гражданство разных государств или имеющими место жительства, бизнес-центр или постоянное место жительства в разных странах, с целью осуществления Используемая нами коммерческая деятельность представляет собой юридическую сделку взаимного и взаимного волеизъявления коммерческого характера.

**Ключевые слова:** договор, коммерческое право, международные торговые соглашения, Венская конвенция, доктрина, интерес, Международный коммерческий суд.

**Abstract**

International trade agreements are the basis of international trade relations. International trade can be defined as the exchange of goods and services between individuals and legal entities who are citizens of different countries or have domiciles, places of business or permanent residence in different countries. International commercial agreements for the purpose of establishing, modifying or terminating legal relations between two or more individuals or legal entities having citizenship of different states or having a place of residence, business center or permanent residence in different countries, for the purpose of carrying out the commercial activity we use constitutes a legal a transaction of mutual and mutual expression of will of a commercial nature.

**Key words**: contract, commercial law, international trade agreements, Vienna Convention, doctrine, interest, International Commercial Court.

## 4. Giriş

Beynəlxalq ticarət hüququ, ölkələr arasında ticarəti tənzimləyən və düzənləyən bir sahədir. Müasir dünyada, bu sahədəki dəyişikliklər və yeniliklər, müstəqil ölkələrin və beynəlxalq iqtisadi birliklərin işləməsinə dair mühüm təsirlər yaradır. Beynəlxalq ticarətdə müqavilə hüququ sahəsində son illərdə müşahidə olunan əsas dəyişikliklər və yeniliklər, bir sıra beynəlxalq təşkilatlar və qurumlar tərəfindən təşkil edilən yeni müqavilələrin və ya sənədlərin qəbulu ilə əlaqəlidir. Bu, ölkələr arasında ticarəti daha asan və şəffaf edir və beynəlxalq ticarət təşviqlərinin inkişafına yardım edir. Trans-Pasifik Tərəfdaşlıq Müqaviləsi (TPP), Beynəlxalq Maliyyə Məktəbi (IFM) Müqavilələri, Beynəlxalq Sərhəd Transaksiyaları Müqavilələri (ISTM) kimi müqavilələrin qəbul edilməsi bu sahədə ortaya çıxan praktikanın dəyişməsi və inkişafı üçün ciddi təkar yaratmışdır.

Beynəlxalq ticarət müqavilələri, müxtəlif dövlətlərin qanunvericilik prinsiplərinə və öhdəliklərinə əsaslanır. Bu müqavilələr, ticarət əməkdaşlığının qurulması, inkişaf etdirilməsi və qorunmasını təmin edir. Həmçinin, müqavilələr, beynəlxalq ticarət münasibətlərinin sülh və müqavilə qaydalarına əsaslanmasını təmin edir.

Beynəlxalq ticarət müqavilələrinin əsas məqsədi, müxtəlif ölkələr arasında ticarət əməkdaşlığının tənzimlənməsi və qaydalanılmasıdır. Bu müqavilələr, iki tərəf arasında əlaqələri tənzimləyərək, ticarətə dair normativləri, vergiləri, maliyyə və mülkiyyət haqlarını müəyyənləşdirir.

Beynəlxalq ticarət müqavilələri, müxtəlif sahələrdə, məsələn, malların və xidmətlərin ticarəti, intellektual mülkiyyət haqqı, maliyyə və sərmayə sahələri kimi sahələrdə də tətbiq olunur. Bu müqavilələr, ölkələr arasında sərhədlərin açılmasını, ticarətin inkişafını və münasibətlərin gücləndirilməsini təmin edir.

Əsasən, beynəlxalq ticarət müqavilələri, ticarət əməkdaşlığının dərinləşməsinə və genişlənməsinə imkan verir. Bu müqavilələr, ölkələr arasında ticarəti asanlaşdırmaq, şəffaf edərək, beynəlxalq ticarət təşviqlərinin inkişafına dəstək verir.

Beynəlxalq ticarət müqavilələri ilə əlaqədar aparılan tədqiqat işi, bu sahədəki aktual münasibətləri, ortaya çıxan əsas problemli məqamların dəqiq anlaşılması və həllinə nail olmaq üçün nəzəri və konseptual bir təhlilin aparılmasını qarşıya məqsəd olaraq müəyyən etmişdir. Bu tədqiqatın

əsas məqsədi, beynəlxalq ticarət müqavilələrinin strukturu, funksiyaları, müxtəlif növləri və onların hüquqi nüansları haqqında geniş bir anlayış yaratmaqdır.

Tədqiqat işinin aparılmasının əsas səbəbi beynəlxalq ticarət müqavilələrinin əsas növləri, həmin müqavilələrin hazırlnaması zamanı ortaya çıxan əsas hüquqi müddəalar, tərəflərin toqquşan maraqlarının bərtəraf edilməsi texnikaları və digər əhəmiyyətli məqamların araşdırılmasıdır.

Tədqiqat işinin strukturu, müqavilələrin müzakirə olunmasını tənzimləyən beynəlxalq hüquqi qaydaları və prosedurları anlamaq üçün bir çərçivə təklif edir. Bu çərçivə, müqavilələrin tətbiqində mövcud olan müxtəlif problemlərin və mübahisələrin həllinə kömək edir.

Tədqiqat işinin metodoloji aspekti, beynəlxalq ticarət müqavilələri haqqında məlumat toplamaq, analiz etmək və qiymətləndirmək üçün müxtəlif tədqiqat metodu və alətləri tətbiq edir. Bu metodlar arasında literatur təhlili, hüquqi normların təhlili, statistik məlumatların qiymətləndirilməsi və məsələlərin həllinə yönlənmiş tədqiqat yer alır.

Nəticə olaraq, bu tədqiqat işi, beynəlxalq ticarət müqavilələri haqqında ətraflı və sistematik bir anlayış yaratmaq, bu müqavilələrin tətbiqi zamanı meydana gələn məsələlərin həllinə kömək etmək və beynəlxalq ticarət hüququ sahəsində inkişaf edən məsələlərə yaratıcı və praktik həllər təklif etmək üçün nəzərdə tutulmuşdur.

**5. Müqavilə hüququnun konsepsiyası və inkişaf tendensiyaları.**

Müqavilə hüququ geniş mənada müqavilə hüququnu həm daxili, həm də beynəlxalq təsərrüfat dövriyyəsinin iştirakçıları arasında müxtəlif müqavilə öhdəliklərinin bağlanması, icrası və ləğvi ilə bağlı mülkiyyət münasibətlərini tənzimləyən, müxtəlif mənbələrdə cəmlənmiş qaydaların bütün məcmusu başa düşülə bilər.

Müxtəlif hüquq sistemlərinin müasir müqavilə hüququnda baş verən aşağıdakı əsas tendensiyaları qeyd edə bilərik.

7. Aşağıdakı əsas sahələrdə baş verən müqavilə hüququnun beynəlmiləlləşməsi:

e) beynəlxalq ictimai hüququn konkret ölkənin mülki (kommersiya) hüququna təsirinin gücləndirilməsi;

f) xarici elementlə münasibətlərin milli hüquqi tənzimlənməsinin intensiv inkişafı;

g) mülki və kommersiya hüququnun unifikasiyası;

h) müxtəlif ölkələrdə xüsusi hüququn təkcə normativ məzmununu deyil, həm də hüquq mənbələri sistemlərini bir araya gətirmək.

Bu proses Avropa hüququ timsalında xüsusilə aydın görünür. Bu tendensiyanı Azərbaycan öhdəlik hüququ nümunəsində də müşahidə etmək olar. Müqavilə hüquqi institutlarını inkişaf etdirərkən Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilə və konvensiyaların müddəaları (məsələn, Beynəlxalq alqı-satqı müqavilələri haqqında Vyana Konvensiyası) nəzərə alınmışdır(14). Burada həmçinin, Beynəlxalq faktorinq, nəqliyyat xidmətləri və tikinti müqavilələri üzrə Beynəlxalq Şəxsi Hüququn Unifikasiyası İnstitutu (UNIDROIT) tərəfindən hazırlanmış Konvensiyalarda əksini tapmış qaydalardan istifadə edilmişdir. Qeyd edək ki, mülki qanunvericiliyin unifikasiyası prosesi Müstəqil Dövlətlər Birliyinə üzv dövlətlərin qanunvericiliyi üçün də xarakterikdir. Məsələn, Mülki Məcəllənin üçüncü hissəsinin yuxarıda qeyd olunan layihəsi Müstəqil Dövlətlər Birliyinə tövsiyə xarakterli qanunvericilik aktı kimi qəbul edilmişdir.

8. Müqavilə formasının liberallaşdırılması, elektron sənəd dövriyyəsinin müqavilə praktikasına tətbiqi, elektron ticarətin inkişafı.

9. Əvvəllər müxtəlif ölkələrin qanunvericiliyinə məlum olmayan yeni müqavilə növlərinin yaranması, qarışıq müqavilə dizaynlarının geniş yayılması.

Son onilliklərdə Qərb ölkələrində və ABŞ-da işgüzar münasibətlərin hüquqi tənzimlənməsi sahəsində françayzinq müqaviləsi (françayzinq) geniş yayılmışdır. ABŞ-da beynəlxalq françayzinq müqaviləsinin bağlanması ilə bağlı xüsusi qaydalar mövcuddur. Azərbaycanda françayzinq biznes modelini tənzimləyən əsas qanunverilicik aktı Mülki Məcəllədir (Azərbaycan Respublikasının Mülki Məcəlləsi, fəsil 35, maddə 723-731). Françayzinqlə dolayısı ilə əlaqəli qanunvercilik isə Azərbaycan Respublikasının əmtəə nişanları və coğrafi göstəricilər, patent, sahibkarlıq, müəllif hüquqları və digər hüquqlar haqqında qanunlardır.

Ötən əsrin ortalarından etibarən lizinq müqavilələri də geniş vüsət almışdır, bu əməliyyatların hüquqi tənzimlənməsinin unifikasiyası zərurəti 28 may 1988-ci il tarixli UNIDROIT Beynəlxalq Maliyyə Lizinq Konvensiyasının qəbul edilməsinə səbəb olmuşdur.

Müasir müqavilə hüququnda müqavilənin tətbiq dairəsi faktiki əmlak mübadiləsi aktından kənara çıxır. Bu, tabeçilik müqavilələri, mənfəətdən ayırmalar, "qiymətlərin şaquli fiksasiyası" və s. kimi yeni müqavilə institutlarının yaranmasına səbəb oldu.

Güman etmək olar ki, növbəti illərdə ödənişli xidmətlərin göstərilməsi müqaviləsi, ilk növbədə, satışdan sonrakı dövrdə məhsulun istismar keyfiyyətinin saxlanmasına yönəlmiş müxtəlif növ texniki, konsaltinq, informasiya xidmətləri , habelə təhvil verilməsi ilə bağlı münasibətlərin müqavilə formaları və əqli mülkiyyətdən istifadə müxtəlif ölkələrin qanunvericiliyində intensiv şəkildə inkişaf etdiriləcək.

10.Müqavilə azadlığı prinsiplərinin dövlət hüquqi tənzimləmələri ilə müəyyən edilmiş azadlığa artan məhdudiyyətlərlə birləşməsi.

Müqavilə azadlığı müqavilələr hüququnun əsas prinsipidir. Beynəlxalq Ticarət Sazişlərinin Prinsiplərinin (UNIDROIT prinsipləri) 1.1 maddəsində deyilir: "Tərəflər müqavilə bağlamaqda və onun məzmununu müəyyən etməkdə sərbəstdirlər(15)".

Müqavilə azadlığı prinsipinin məhdudlaşdırılması aşağıdakı sahələrdə müşahidə edilə bilər:

d) antiinhisar (antiinhisar) qanunvericiliyi müəyyən növ müqavilələri məhdudlaşdırır və ya hətta birbaşa qadağan edir. Buraya müəyyən məhsulun istehsalının müəyyən həcmlərini iştirakçılarına həvalə edən, satış bazarlarını bölüşdürən, malların dempinq qiymətləri ilə satışını qadağan edən və s. müqavilələr daxildir. Bir çox Qərbi Avropa ölkələrində "məhdudlaşdırıcı" müqavilələr inzibati, dövlət orqanları və ya məhkəmə orqanlarında məcburi qeydiyyata alınır.

e) Azadlıq prinsipinin məhdudlaşdırılması, peşəkar iş adamının daha zəif tərəfin, xüsusən də istehlakçının şəxsi istehlakı üçün məhsul almaması və ya xidmət almaması ilə bağlı olduğu müqavilələrin şərtlərinin məzmununa dövlət orqanları tərəfindən nəzarət edilməsində görünür. Belə müqavilələrdə azadlığın məhdudlaşdırılması müqaviləyə müəyyən şərtlərin daxil edilməsi və ya müqavilədə istehlakçıların mənafeyini pozan müəyyən şərtlərin olmasına qadağa qoyulması yolu ilə həyata keçirilir.

f) Dövlət müəyyən müqavilə şərtlərinin məzmununu, məsələn, qiymət sahəsində müəyyən edir.

11.Öhdəliklərin yerinə yetirilməsini təmin etmək yolları sisteminin işlənib hazırlanması.

Qərb hüquq sistemlərində daşınar əmlakın girovu, şərti satış, imtiyazlı hüquq, eləcə də təhlükəsizlik məqsədləri üçün mülkiyyət hüququnun ötürülməsi və saxlanması kimi fəaliyyətin təmin edilməsi üsulları son zamanlarda inkişaf etmişdir.

12.Əsas vasitə kimi itkilərin universallaşdırılması istiqamətində müqavilə məsuliyyəti institutunun təkmilləşdirilməsi.

Sonrakı müzakirə mövzusu malların beynəlxalq alqı-satqısı müqaviləsi olacağından, beynəlxalq alqı-satqı sahəsində əlaqələrin təşkilinə yönəlmiş mənbələrə xüsusi diqqət yetirmək məntiqli olardı.

Beləliklə, malların beynəlxalq alqı-satqısına dair müqavilələr haqqında BMT Konvensiyasının (Vyana Konvensiyası, 1980-ci il) əhəmiyyətini qiymətləndirmək çətindir. Azərbaycanın demək olar ki, bütün əsas ticarət tərəfdaşları bu Konvensiyanın tərəfləridir və bu, beynəlxalq alqı-satqı müqavilələrini tənzimləmək üçün əsasən vahid hüquqi rejimdən istifadə etməyə imkan verir. Bu vacibdir, çünki müxtəlif dövlətlərin milli hüququnda təkcə eyni məsələlərin həllinə yanaşmalarda deyil, həm də konkret müqavilə əsasında münasibətləri hansı dövlətin qanununun tənzimlədiyini müəyyən etməyə yanaşmada ciddi fərqlər mövcuddur. Konvensiya tərəflərin ona istinadın müqaviləyə daxil edilib-edilməməsindən asılı olmayaraq tətbiq edilir. Konvensiyanın tətbiqi üçün müəyyən edən meyar müqavilə tərəflərinin kommersiya müəssisələrinin müxtəlif dövlətlərdə yerləşməsi və təbii ki, bu dövlətlərin Konvensiyanın iştirakçısı olmasıdır.

Bu Konvensiya 101 maddədən ibarətdir və həm daxili ticarətdə, həm də qlobal ticarətdə ən çox yayılmış alqı-satqı əməliyyatlarının müxtəlif aspektlərini əhatə edir. Konvensiya beynəlxalq alqı-satqı müqavilələrinin bağlanması qaydasını, kontragentlərin müqavilə üzrə hüquq və vəzifələrini, tərəflər öhdəliklərini pozduqda tətbiq edilən hüquqi müdafiə vasitələrini nəzərdə tutur.

Vyana Konvensiyasının "ruhunu" anlamaq üçün, eləcə də icra məqsədləri üçün onun əsaslandığı prinsipləri anlamaq vacibdir. Ekspertlər Konvensiyanın aşağıdakı prinsiplərini adlandırırlar: müqavilə azadlığı; Konvensiyanın müddəalarının istəyə bağlılığı; beynəlxalq ticarətdə dürüstlüyə ehtiyac; öhdəliklərin yerinə yetirilməsində əməkdaşlıq; öhdəliklərin icrasının qiymətləndirilməsində "əsaslılıq" meyarının tətbiqi.

Malların beynəlxalq satışına dair müqavilənin məzmununu formalaşdırmaq üçün Beynəlxalq Ticarət Palatası tərəfindən hazırlanmış sənədlər, xüsusən də Ticarət Şərtlərinin Şərhinə dair Beynəlxalq Qaydalar (Incotrems 2010) böyük əhəmiyyət kəsb edir ki, bunlar əmtəələrin beynəlxalq alqı-satqısına dair müqavilənin məzmunu məsələsini önə çəkərək aşağıda müzakirə olunacaq.

Biz vurğulayırıq ki, bu aktın tətbiqi müqavilə bağlayan tərəflərin öz iradəsinə əsaslanır (əgər müqavilədə ona birbaşa istinad edilirsə), Mülki Məcəllənin beynəlxalq hüququn üstünlüyü haqqında maddəsi(16) bu cür aktlara şamil edilmir.

Beynəlxalq Kommersiya Müqavilələrinin Prinsiplərinin oynadığı mühüm rolu qeyd etmək yerinə düşər. Bu sənəd Beynəlxalq Şəxsi Hüququn Birləşdirilməsi İnstitutu (UNIDROIT) tərəfindən hazırlanıb. Bu prinsiplər müqavilə hüququ üçün nümunə ola bilər və vahid hüquqi sənədləri şərh etmək və əlavə etmək üçün istifadə edilə bilər. Bu sənəd hər hansı ümumi konseptual ideyaların bəyannaməsi deyil, müqavilələrə dair ümumi müddəaları, onların bağlanması, icrası, məzmununun formalaşması, xitam və xitam verilməsi qaydalarını, qanun pozuntusuna yol verildikdə məsuliyyət tədbirlərinin yerinə yetirilməməsi və s. özündə əks etdirən ayrılmaz, məntiqi ardıcıl aktdır. Başqa sözlə, bu akt müqavilənin "həyatının" bütün mərhələlərini əhatə edir və onun xarakterik xüsusiyyəti tənzimləmənin məntiqi bütövlüyü və mürəkkəbliyidir. Tərəflər müqavilələrinin "ümumi hüququn prinsipləri" ilə tənzimlənəcəyi barədə razılığa gəliblərsə, qeyd olunan prinsiplər birbaşa tətbiq edilir. Prinsiplər tətbiq olunan hüququn müvafiq qaydasını müəyyən etmək mümkün olmadıqda tətbiq edilir.

